# MƏQALƏLƏR

(2009 – 2014-cü illər)

MÜNDƏRİCAT


- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MÜSTƏQİLLİK KONSEPSİYASI ....8
- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA DEMOKRATİK DÖVLƏT QURUCULUĞU ....13
- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ƏDLİYYƏSİ ....21
- CƏMİYYƏTİ MİLLİ İDEYA ƏTRAFINDA BİRLƏŞDİRƏN LİDER ....24
- HEYDƏR ƏLİYEVİN YAŞAYAN VƏ YAŞADAN İDEYALARI ....30
- SƏMƏRƏLİ İNKİŞAF MODELİNİN BANİSİ ....35
- MÜKƏMMƏL QANUNVERİCİLİK SİSTEMİNİN BANİSİ ....38
- UĞURLU İSLAHATLARIN MÜƏLLİFİ ....43
- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA QADIN SİYASƏTİ ....48
- TARİXİN GEDİŞİNİ DƏYİŞƏN ŞƏXSİYYƏT: HEYDƏR ƏLİYEV ....52
- UĞURLU XARİCİ SİYASƏT KURSUNUN BANİSİ ....56
- BÖYÜK AZƏRBAYCANLI ....61
- AZƏRBAYCANI DÜNYAYA TANIDAN LİDER ....64
- AZƏRBAYCAN KONSTİTUSİYASININ MÜƏLLİFİ ....68
- MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRƏ QƏLBƏN BAĞLI LİDER ....71
- HEYDƏR ƏLİYEVİN İKT SİYASƏTİ MÜASİR MƏRHƏLƏDƏ ....76
- HEYDƏR ƏLİYEV TARİXİN XALQIMIZA ƏN BÖYÜK TÖHFƏSİ İDİ ....81
- DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİNİN BANİSİ ....83
- HEYDƏR ƏLİYEV DÜHASI YÜKSƏLİŞ YOLLARINA İŞIQ SALIR ....87
- ÜMUMMİLLİ LİDERİN VƏTƏNPƏRVƏRLİK FENOMENİ ....91
- XALQIMIZA QARŞI TÖRƏDİLMİŞ SOYQIRIMI VƏ DEPORTASİYALARA HEYDƏR ƏLİYEV BAXIŞI 95
- HEYDƏR ƏLİYEV İRSİ UĞURLU İSLAHATLARIN LEYTMOTİVİDİR ....100
- HEYDƏR ƏLİYEV VƏ İNSAN HÜQUQLARI ....111
- XALQA LAYİQLİ XİDMƏT MƏRAMI ....116
- ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MÜDRİK SİYASƏTİ DAİM AZƏRBAYCANIN MİLLİ MƏNAFELƏRİNƏ XİDMƏT ETMİŞDİR ....122
- TARİXƏ İŞIQ SALAN İNSAN ....125
- HEYDƏR ƏLİYEV EPOXASI ....130
- AZƏRBAYCANIN NEFT-KİMYA SƏNAYESİNİN İNKİŞAFI HEYDƏR ƏLİYEVİN ADI İLƏ BAĞLIDIR ....134
- HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏTİNDƏ NƏQLİYYAT-KOMMUNİKASİYA VƏ ENERJİ DƏHLİZLƏRİ MƏSƏLƏSİ ....138
- TARİXİ QAYIDIŞ VƏ XALQIN QURTULUŞU ....146

- TARİX YARADAN ŞƏXSİYYƏT ........ 151
- HEYDƏR ƏLİYEVİN QAZ TƏSƏRRÜFATININ İNKİŞAFINDA ROLU ƏVƏZSİZDİR ........ 157
- XALQINA XOŞBƏXTLİK BƏXŞ EDƏN DAHİ ........ 160
- HEYDƏR ƏLİYEV AZƏRBAYCAN ELMİNİN HAMİSİ İDİ ........ 164
- HEYDƏR ƏLİYEV VƏ MÜASİR AZƏRBAYCAN ........ 170
- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA DEMOKRATİK DÖVLƏT QURUCULUĞU ........ 178
- "ƏSRİN MÜQAVİLƏSİ" – YÜKSƏLİŞ YOLUNUN UĞURLU TƏMƏLİ ........ 186
- ÜMUMMİLLİ LİDER MÜSTƏQİL DÖVLƏTİMİZİN İLK KONSTİTUSİYASININ YARADICISIDIR ........ 192
- HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN BÖYÜK UĞURLA REALLAŞDIRILAN İQTİSADİ STRATEGİYASININ BANİSİDİR ........ 195
- HEYDƏR ƏLİYEVİN RESPUBLİKAYA RƏHBƏR SEÇİLMƏSİ İLƏ AZƏRBAYCAN TARİXİNDƏ KEYFİYYƏTCƏ YENİ MƏRHƏLƏ BAŞLANMIŞDI ........ 200
- HEYDƏR ƏLİYEV VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ ........ 205
- ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DÖVLƏT, MİLLƏT QARŞISINDAKI XİDMƏTLƏRİ ZAMAN KEÇDİKCƏ DAHA AYDIN GÖRÜNÜR ........ 209
- AZƏRBAYCANDA MELİORASİYA VƏ SU TƏSƏRRÜFATININ DİNAMİK İNKİŞAFI ULU ÖNDƏRİMİZİN ADI İLƏ BAĞLIDIR ........ 215
- MÜASİR AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN BANİSİ ........ 218
- HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİ: XARİZMATİK LİDERİN SƏCİYYƏVİ CƏHƏTLƏRİ ........ 223
- MÜASİR AZƏRBAYCANIN QURUCUSU ........ 228
- AZƏRBAYCAN RUHUNUN SİMVOLU ........ 233
- AZƏRBAYCAN-GÜRCÜSTAN DOSTLUĞUNUN ƏN ŞANLI SƏHİFƏLƏRİNİN MÜƏLLİFİ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVDİR ........ 236
- MƏNƏVİYYAT ZİRVƏSİ ........ 240
- LİDERLİK UCALIĞI ........ 245
- HEYDƏR ƏLİYEV ELM VƏ TƏHSİLİN İNKİŞAFINA BÖYÜK QAYĞI İLƏ YANAŞIRDI ........ 250
- HEYDƏR ƏLİYEV - AZƏRBAYCAN ORDUSUNUN QURUCUSUDUR ........ 255
- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN XALQININ TARİXİ ........ 257
- MÜTƏRƏQQİ TƏHSİL STRATEGİYASININ BANİSİ ........ 260
- ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN İRSİ MİLLİ SƏRVƏTİMİZDİR ........ 263
- AZƏRBAYCAN SƏNAYESİNDƏ İNKİŞAFIN BANİSİ ........ 269
- HEYDƏR ƏLİYEV VƏ DÖVLƏT İDARƏÇİLİYİ ........ 271
- MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN QURUCUSU ........ 274
- MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN BANİSİ, QURUCU VƏ XİLASKAR HEYDƏR ƏLİYEV ........ 279
- DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ HEYDƏR ƏLİYEVİN ƏN BÖYÜK ARZULARINDAN BİRİ İDİ ........ 283
- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MİLLİ İQTİSADİ İNKİŞAF MODELİ ........ 286
- QURTULUŞDAN BAŞLANAN İNTİBAH YOLU ........ 290
- ULU ÖNDƏR HEYDƏR ƏLİYEV GƏNCLİYİMİZİN XİLASKARIDIR ........ 294

- ŞƏXSİYYƏT VƏ ZAMAN ....297
- HEYDƏR ƏLİYEV VƏ ANA DİLİMİZ ....302
- MÜASİR İNKİŞAF YOLUNUN BANİSİ ....307
- HÜQUQİ DÖVLƏTİN BANİSİ ....312
- GÜCLÜ VƏ MODERN AZƏRBAYCAN ORDUSU HEYDƏR ƏLİYEV SİYASƏTİNİN NƏTİCƏSİDİR ....317
- HEYDƏR ƏLİYEV VƏ XARİCİ SİYASƏTİN AZƏRBAYCAN MODELİ ....322
- ƏBƏDİYAŞAR İNSAN ....327
- HEYDƏR ƏLİYEVİN İDARƏÇİLİK İRSİ DÖVLƏTİN KADR HAZIRLIĞININ ƏSAS QAYƏSİNİ TƏŞKİL EDİR ....332
- AQRAR İNKİŞAFDA HEYDƏR ƏLİYEV İRSİ ....338
- HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK TƏLİMİNDƏ ƏDƏBİYYAT SİYASƏTİ VƏ MÜASİR DÖVR ....343
- XALQI DÖVLƏTÇİLİK İDEALLARINA QOVUŞDURMUŞ RƏHBƏR ....348
- XALQA LAYİQLİ LİDERLİK MİSSİYASI ....350
- TARİXDƏ VƏ YADDAŞLARDA ƏBƏDİ YAŞAYACAQ ŞƏXSİYYƏT ....355
- 1969-1982-Cİ İLLƏR – MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN TƏMƏLİNİN QOYULDUĞU DÖVR ....358
- MİLLİ İNKİŞAFIMIZIN MEMARI ....361
- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİ ....366
- İNKİŞAF STRATEGİYASININ BANİSİ ....374
- ZAMANIN FÖVQÜNDƏ DAYANAN LİDER ....377
- MÜKƏMMƏL MİLLİ DÖVLƏTÇİLİK KONSEPSİYASININ BANİSİ ....382
- HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN SİYASİ VƏ İQTİSADİ MÜSTƏQİLLİYİNİN BANİSİDİR ....386
- AZƏRBAYCAN SAHİBKARLARININ HİMAYƏDARI ....391
- DEMOKRATİK KONSTİTUSİYANIN MÜƏLLİFİ ....394
- HƏRBİ SƏNAYE KOMPLEKSİNİN BANİSİ ....399
- SOSİAL SİYASƏTİN HEYDƏR ƏLİYEV MODELİ ....402
- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN ELEKTRİK ENERJİSİ SİSTEMİ ....408
- BEYNƏLXALQ HÜQUQ MƏKANINA UĞURLU İNTEQRASİYANIN BANİSİ ....411
- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN SAHİBKARLIQ STRATEGİYASI ....415
- İNKİŞAFIN AZƏRBAYCAN MODELİ ....420
- AZƏRBAYCANIN MÜASİR GÖMRÜK SİSTEMİNİN FORMALAŞMASI ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ADI VƏ FƏALİYYƏTİ İLƏ BAĞLIDIR ....426
- ELMİ-İNTELLEKTUAL İNKİŞAFI TƏMİN EDƏN RƏHBƏR ....430
- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİ: ƏSAS MƏQSƏDİ, VƏZİFƏLƏRİ VƏ İCRA MEXANİZMLƏRİ ....435
- MÜKƏMMƏL QANUNVERİCİLİK SİSTEMİNİN BANİSİ ....440
- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MÜSTƏQİLLİK MƏFKURƏSİ ....445
- DAVAMLI İNKİŞAF STRATEGİYASININ MÜƏLLİFİ ....449
- HEYDƏR ƏLİYEV VƏ XARİCİ SİYASƏTİN AZƏRBAYCAN MODELİ ....454

- HEYDƏR ƏLİYEVİN ZƏNGİN İDARƏÇİLİK İRSİ AZƏRBAYCAN XALQININ MİLLİ SƏRVƏTİDİR ...463
- HEYDƏR ƏLİYEV VƏ MİLLİ DÖVLƏTÇİLİK TƏLİMİ – AZƏRBAYCANÇILIQ ....468
- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA VAHİD ELM-TƏHSİL SİYASƏTİNİN TƏMƏLLƏRİ ....472
- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ƏDLİYYƏSİNİN İNKİŞAFI....478
- YAŞAYAN VƏ YAŞADAN LİDER....482
- HEYDƏR ƏLİYEV VƏ GƏNCLƏRİMİZİN HƏRBİ-VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ ....484
- MÜASİR AZƏRBAYCANIN BANİSİ ....486
- XİLASKARLIQ MİSSİYASI ....488
- AZƏRBAYCANIN DİNAMİK İNKİŞAFINA HƏSR OLUNMUŞ ÖMÜR YOLU....490
- HEYDƏR ƏLİYEVİN İNKİŞAF STRATEGİYASI VƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASI (XX əsrin 70-80-ci illəri)....494
- MİLLİ MƏTBUATIMIZIN XİLASKARI ....499
- AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNƏ ETİBARLI TƏMİNAT YARADAN LİDER ....501
- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MİLLİ İQTİSADİ İNKİŞAF MODELİ....506
- ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AQRAR SİYASƏTİ ....510
- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN TARİXİ MİSSİYASININ TƏBLİĞİ....512
- TİBB TƏHSİLİ SİSTEMİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ ....517
- HEYDƏR ƏLİYEV VƏ NAXÇIVANDA MƏTBUATIN İNKİŞAFI ....522
- AZƏRBAYCAN ELM VƏ TƏHSİLİNİN HİMAYƏDARI....527
- HEYDƏR ƏLİYEV İDEYALARI MÜASIR TƏHSİL QURUCULUĞUNUN ƏSASIDIR....531
- MÜASİR AZƏRBAYCAN ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN YOLU İLƏ İRƏLİLƏYİR....538
- ELMİ ƏSASLARA SÖYKƏNƏN DAVAMLI İNKİŞAF STRATEGİYASININ MÜƏLLİFİ ....543
- MİLLƏT MÜƏLLİMİNƏ TARİXİN QİYMƏTİ ....549
- LİDERLİK ZİRVƏSİ....556
- HEYDƏR ƏLİYEV İDEYALARININ DAVAMI VƏ ÖLMƏZLİK ....561
- HEYDƏR ƏLİYEV MÜSTƏQİLLİYİMİZİN VƏ DİNAMİK İQTİSADİ İNKİŞAF STRATEGİYASININ MEMARIDIR....566
- TÜRK DÜNYASININ FƏXRİ ....569
- HEYDƏR ƏLİYEV – AZƏRBAYCANIN ATATÜRKÜ ....575
- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN FOLKLORU ....581
- HEYDƏR ƏLİYEV VƏ MÜASİR AZƏRBAYCAN....589
- TALELİ SİYASƏTÇİ ....592
- AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ HEYDƏR ƏLİYEVİN TARİXİ XİDMƏTLƏRİNDƏN BİRİDİR ....595
- YENİLƏŞƏN AZƏRBAYCAN HEYDƏR ƏLİYEVİN HƏYAT AMALI İDİ....598
- HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT KONSEPSİYASI UĞURLU BƏHRƏLƏRİNİ VERİR....603
- MİLLİ İQTİSADİ İNKİŞAF STRATEGİYASININ BANİSİ ....609
- HEYDƏR ƏLİYEV ELM VƏ TƏHSİLİN, MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN HİMAYƏDARI İDİ....613

- HÜQUQİ DÖVLƏTİN BANİSİ ....617
- UĞURLU HÜQUQİ İSLAHATLARIN MÜƏLLİFİ....621
- SOSİAL SABİTLİKDƏN SOSİAL RİFAHA....627
- HEYDƏR ƏLİYEVİN GEOSİYASİ TƏLİMİ: XXI ƏSRDƏ AZƏRBAYCANIN ƏSAS GEOSİYASİ VƏZİFƏLƏRİ VƏ PERSPEKTİVLƏRİ ....632
- İQTİSADİ İNKİŞAFDAN MODERNLƏŞMƏYƏ KEÇİDİ UĞURLA TƏMİN EDƏN LİDER ....643
- HEYDƏR ƏLİYEV İQTİSADİ MODELİ MÜASİR TƏRƏQQİNİN ƏSASIDIR ....649
- HEYDƏR ƏLİYEV-MİLLİ İFTİXARIMIZ VƏ MƏNƏVİ DƏYƏRLƏRİMİZ ....655
- MÜQƏDDƏS MİSSİYA....660
- MÜASİR AZƏRBAYCAN HEYDƏR ƏLİYEV İDEYALARI İLƏ UĞURLU İNKİŞAF YOLUNDADIR....666
- AZƏRBAYCAN XALQININ TARİXİ... ÜMUMMİLLİ İDEALLARI... VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI....670
- AZƏRBAYCANIN MÜASİRLƏŞMƏSİ HEYDƏR ƏLİYEVİN ADI İLƏ BAĞLIDIR ....677
- AZƏRBAYCAN DÖVLƏTİNİN QURUCUSU VƏ MEMARIDIR....681
- HEYDƏR ƏLİYEV SİYASƏTİNİN TƏNTƏNƏSİ....685
- HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT XƏTTİ VƏ MÜASİRLİK ....693
- TARİX ŞƏXSİYYƏTLƏRİ DEYİL, ŞƏXSİYYƏTLƏR TARİXİ YARADIR!....697
- HEYDƏR ƏLİYEV AZƏRBAYCAN XALQI ÜÇÜN ÜMUMMİLLİ LİDER, DÜNYA ÜÇÜN ÜMUMBƏŞƏRİ DƏYƏRDİR....703
- AZƏRBAYCAN NEFT SƏNAYESİNİN MODERNLƏŞMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU ....706
- AZƏRBAYCANI BEYNƏLXALQ HÜQUQUN MÜSTƏQİL SUBYEKTİNƏ ÇEVİRƏN LİDER....711
- HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT STRATEGİYASI VƏ AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİYİ....716
- MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN TƏMƏL PRİNSİPLƏRİ VƏ MÜASİRLİK ....721
- HEYDƏR ƏLİYEV VƏ PARLAMENTARİZM ƏNƏNƏLƏRİ ....726
- HEYDƏR ƏLİYEV VƏ İSTİQLALIMIZIN 20 İLİ ....730
- HEYDƏR ƏLİYEV İRSİ, İDEYA VARİSLİYİ VƏ DAVAMLI İNKİŞAF....736
- MÜASİRLƏŞMƏ VƏ DEMOKRATİKLƏŞMƏ: HEYDƏR ƏLİYEVLƏ BAŞLANAN YOL....741
- AZƏRBAYCAN ELMİ VƏ TƏHSİLİNDƏ UĞURLU İSLAHATLARIN MÜƏLLİFİ ....745
- ƏHALİNİN SOSİAL MÜDAFİƏSİNİN MÜKƏMMƏL MODELİNİ YARADAN LİDER....750
- HEYDƏR ƏLİYEV FENOMENİ VƏ AZƏRBAYCANIN MİLLİ İNTİBAHI....755
- HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA HÜQUQİ DÖVLƏT QURUCULUĞUNUN BANİSİDİR....760
- HEYDƏR ƏLİYEV İDEYALARI AZƏRBAYCANI DAİM MÜASİRLİYƏ APARIR....764
- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TARİXİ....770
- HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN QURUCUSU VƏ MEMARIDIR ....775
- DÜNYA MİQYASLI SİYASƏTÇİ ....778
- MÜASİR AZƏRBAYCAN: HEYDƏR ƏLİYEV İDEYALARI İLƏ UĞURLU İNKİŞAF YOLUNDA ....782
- AZƏRBAYCANÇILIQ, AZƏRBAYCANŞÜNASLIQ VƏ ƏLİYEVŞÜNASLIQ ....786
- HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİ VƏ ÜMUMMİLLİ İDEALLARIMIZ....791

- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MİLLİ İNKİŞAF SİYASƏTİ: XARAKTERİSTİKASI, ƏSAS VƏZİFƏLƏRİ VƏ TƏLƏBLƏRİ....794
- HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK FƏLSƏFƏSİ VƏ MÜASİR AZƏRBAYCAN....801
- ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN GENDER SİYASƏTİ: UĞURLU NƏTİCƏLƏR....804
- XALQ ÜÇÜN QURULMUŞ DÖVLƏT....807
- DAYANIQLI VƏ SABİT İNKİŞAFA YOL AÇAN HEYDƏR ƏLİYEV İDEYALARI....811
- UĞURLU XARİCİ SİYASƏTİN BANİSİ....816
- HEYDƏR ƏLİYEVİN İDEYALARI AZƏRBAYCAN SƏHİYYƏSİNİN İNKİŞAFINDA MÜHÜM AMİLDİR....821
- ZƏNGİN VƏ QÜDRƏTLİ AZƏRBAYCAN HEYDƏR ƏLİYEV İDEYALARININ TƏMƏL PRİNSİPİDİR.826
- VƏTƏNİNİ TƏRƏQQİ VƏ XOŞBƏXTLİK YOLUNA ÇIXARMIŞ LİDER....831
- MÜKƏMMƏL KONSTİTUSİYANIN BANİSİ....834
- AZƏRBAYCAN XALQI ÖZ GÖRKƏMLİ LİDERİNİN MÜQƏDDƏS XATİRƏSİNİ HƏMİŞƏ HÖRMƏTLƏ YAD EDƏCƏK....839
- HEYDƏR ƏLİYEV SİYASİ KURSU MÜSTƏQİL AZƏRBAYCANIN DÖVLƏTÇİLİK İDEOLOGİYASIDIR....843
- HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA HÜQUQİ DÖVLƏTİN BANİSİDİR....849
- AZƏRBAYCAN 2020: İNKİŞAFIN YENİ HÜDUDLARININ TƏMƏLİ HEYDƏR ƏLİYEV TƏRƏFİNDƏN QOYULMUŞDUR....852
- HEYDƏR ƏLİYEVİN ŞAH ƏSƏRİ - MÜSTƏQİL AZƏRBAYCAN....857
- BİRİNCİLİK ƏZMİ....860
- HƏYATININ MƏNASINI VƏTƏNƏ XİDMƏTDƏ GÖRƏN ÜMUMMİLLİ LİDER....865
- MÜSTƏQİL AZƏRBAYCAN YENİ QURUCULUQ MƏRHƏLƏSİNDƏ....870
- HEYDƏR ƏLİYEVİN MİLLİ VƏTƏNPƏRVƏRLİK ELMİ KONSEPSİYASI....876
- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA QADIN SİYASƏTİ....880
- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN GƏNCLİYİ....883
- HEYDƏR ƏLİYEV – İSTİQLAL CARÇISI....886
- HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT KURSU VƏ AŞPA....891
- AZƏRBAYCANÇILIQ İDEALININ RƏMZİ....895
- ŞƏRƏFLİ ÖMÜR YOLU....899
- ŞƏXSİYYƏTİN QÜDRƏTİ VƏ EPOXANIN MAHİYYƏTİ HAQQINDA EPOPEYA....905
- BÖYÜK SƏNƏTİN BÖYÜK HAMİSİ....911
- MÜASİR AZƏRBAYCANIN QURUCUSU....916
- MÜSTƏQİL AZƏRBAYCAN ELMİNİN VƏ TƏHSİLİNİN MEMARI....921
- HEYDƏR ƏLİYEV ZƏMANƏMİZİN GÖRKƏMLİ DİPLOMATIDIR....925
- HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN TARİXİNDƏ LİDERLİK MİSSİYASI....930
- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA NEFT SƏNAYESİNİN İNKİŞAFI....938
- HEYDƏR ƏLİYEV VƏ HƏMKARLAR İTTİFAQLARI....943
- HÜQUQİ DÖVLƏT İDEYASINI GERÇƏKLİYƏ ÇEVİRƏN LİDER....946

- TARİX ELMİMİZİN BÖYÜK HİMAYƏDARI ....951
- İNSAN HÜQUQLARI SAHƏSİNDƏ YENİ STRATEGİYALARIN BANİSİ ....954
- AZƏRBAYCAN İQTİSADİYYATINDA HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ ....963
- ULU ÖNDƏR HEYDƏR ƏLİYEV İDEYALARI İŞIĞINDA ....968
- ULU ÖNDƏR HEYDƏR ƏLİYEV – AZƏRBAYCAN ELMİNİN HAMİSİ ....973
- HEYDƏR ƏLİYEV: AZƏRBAYCANDA MÜASİR HÜQUQİ DÖVLƏTİN BANİSİ ....976
- HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏT FƏLSƏFƏSİNİN ƏSAS PRİNSİPLƏRİ ....981
- HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT KURSU: DÜNYA SİSTEMİNİN YENİDƏN QURULMASI KONTEKSTİNDƏ ....984
- TALEYİN ƏN BÖYÜK TÖHFƏSİ ....990
- MÜSTƏQİL AZƏRBAYCANIN YENİ İNKİŞAF STRATEGİYASININ MÜƏLLİFİ ....997
- HEYDƏR ƏLİYEVİN DÖVLƏT QURUCULUĞU STRATEGİYASI VƏ İQTİSADİ İSLAHATLAR ....1002
- ZAMANIN FÖVQÜNDƏ ....1007
- HEYDƏR ƏLİYEV AZƏRBAYCAN XALQININ DAHİ MÜASİRİDİR ....1012
- HEYDƏR ƏLİYEV VƏ MÜASİR AZƏRBAYCANIN İKT SİYASƏTİ ....1017
- HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANIN MÜSTƏQİLLİYİ VƏ MİLLİ DÖVLƏTÇİLİYİ UĞRUNDA MÜBARİZƏSİ ....1022
- MÜASİR AZƏRBAYCANIN MEMARI VƏ QURUCUSU ....1028
- HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT KURSU YENİ MƏRHƏLƏDƏ DİNAMİK ŞƏKİLDƏ İNKİŞAF ETDİRİLİR ....1033
- ƏSL VƏTƏNDAŞ, BÖYÜK ŞƏXSİYYƏT VƏ QÜDRƏTLİ LİDER ....1038
- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI ....1043
- ÜMUMMİLLİ LİDERİN HÜQUQİ BAXIŞLARININ AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINDA TƏZAHÜRÜ ....1049
- TARİX YARADAN ŞƏXSİYYƏT ....1059
- HEYDƏR ƏLİYEV: İKİ TARİX – BİR SİMA ....1063
- BÖYÜK ƏDƏBİYYAT HEYKƏLİ ....1066
- TARİX MİSSİYA ....1070
- HEYDƏR ƏLİYEV İRSİNDƏ DEMOKRATİYA VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ ....1073
- AZƏRBAYCAN TARİXİNDƏ HEYDƏR ƏLİYEV FENOMENİ ....1077
- HEYDƏR ƏLİYEVİN İNKİŞAF STRATEGİYASI - MÜSTƏQİLLİYİN TƏNTƏNƏSİNƏ APARAN YOL 1081
- HEYDƏR ƏLİYEV: MÜASİR, DEMOKRATİK AZƏRBAYCANIN MEMARI ....1084
- ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DEMOKRATİK DÖVLƏTÇİLİK FƏLSƏFƏSİ ....1088
- ÖNDƏR ....1091
- AZƏRBAYCANI TARİXİ ARZULARINA QOVUŞDURAN FENOMENAL ŞƏXSİYYƏT ....1097
- MİLLİ İNKİŞAF STRATEGİYASININ MÜƏLLİFİ ....1101
- HEYDƏR ƏLİYEVİN 1960-1970-CI İLLƏRDƏ ERMƏNİ-DAŞNAK QÜVVƏLƏRİNİN AZƏRBAYCAN ƏLEYHİNƏ YÖNƏLMİŞ MƏKRLİ PLANLARINA QARŞI QƏTİYYƏTLİ MÜBARİZƏSİ ....1105
- HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MÜSTƏQİL XARİCİ SİYASƏTİNİN FORMALAŞMASI ....1116

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MÜSTƏQİLLİK KONSEPSİYASI

**İlham İSMAYILOV,**
*siyasi elmlər namizədi*

*Azərbaycan adlı dövlətin varlığı bizim ən böyük tarixi sərvətimiz, bütün Azərbaycanlıların qazandığı ən böyük nailiyyətdir.*

**Heydər ƏLİYEV**

Yaxın tarixi təcrübəmiz real şəkildə sübut etdi ki, əgər müstəqillik həqiqi mənada xalqa xidmət edirsə, millətə öz milli həyatını sərbəst, özünəməxsus şəkildə qurmaq imkanı verirsə, yalnız bu halda o, milli inkişafın ən müqəddəm şərti hesab oluna bilər. Ümummilli lider Heydər Əliyevin vaxtilə söylədiyi "Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm" deyimini bu gün də həyəcansız xatırlamaq mümkün deyil. Ona görə ki, xalqımızın əsrlər boyu uğrunda mübarizə apardığı, lakin əsl milli dəyər mahiyyətini bugünkü uğurlarımızda daha real dərk etdiyi müstəqillik idealında cəmiyyətimizin qarşılaşdığı məşəqqətli, faciəli anlar, ağrılı günlər öz izini qoymuşdur. Ulu öndərin bu həyat manifesti bizdə ölçüyəgəlməz qürur hissi doğurur, çünki bu optimizmdə onun rəhbərliyi ilə milli varlığımızın taleyüklü problemlərinin həlli yolunda atılan uğurlu addımları, milli tərəqqiyə mane olan neqativ əyintiləri vaxtında təmkin və qətiyyətlə aradan qaldırmaq əzmi və bacarığı, elin qüdrətindən mayalanan milli təfəkkürün yaradıcı potensial təcəssümünü tapmışdır. Məhz buna görə Heydər Əliyevin müstəqillik konsepsiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurlar fonunda xüsusi aktuallıqla səslənir.

Doğrudur, ümummilli lider milli müstəqillik probleminə həsr edilmiş xüsusi elmi əsərlər yazmamışdır. Lakin özünün bütün siyasi karyerası boyu xalqımızın müstəqilliyə yetmək istəyini dərindən duymuş və müdafiə etmiş, bu taleyüklü milli problemin məzmun və mahiyyətinə dərindən nüfuz etmiş, bu amalı özünün fəaliyyət kredosuna çevirmişdir. O, istər dərin məzmunlu çıxışlarında, istərsə də xalqla keçirdiyi görüşlərdə səsləndirdiyi ideyalarla müstəqillik konsepsiyasının nəzəri-praktiki əsaslarını yaratmışdır. Bu konsepsiyada milli dövlətçilik ideyaları ilə həmin ideyaları həyata keçirən müdrik siyasətin obrazının dialektik vəhdətini görürük.

Sxolastik düşüncə tərzini kəskin tənqid edən Heydər Əliyevin müstəqillik konsepsiyası mühüm nəzəri-praktik model kimi milli reallıqlarımızın və bu reallıqların xarici faktorlarla şərtlənməsinin analitik, yaradıcı dərkinin məhsuludur. Odur ki, biz Heydər Əliyevin müstəqillik konsepsiyasının formalaşmasının ilkin şərtləri olan xarici və daxili faktorlara toxunmaq istərdik.

Kontinental imperiya olmuş Sovetlər İttifaqının dağılmasından sonra "soyuq müharibə", "qorxunun tarazlığı", "nüvə qışı" kimi düşüncələri narahat edən metaforik ifadələrin qlobal siyasi şüurdan hələ tam psixoloji mənada sıxışdırılmadığı bir beynəlxalq şəraitdə Azərbaycan Respublikasının dünya inteqrasiya proseslərinə qoşulması hakimiyyətə qayıdışının ilk günlərindən ulu öndərin başlıca və ardıcıl dövlətçilik idealı olmuşdur.

Konsepsiyanın beynəlxalq dəyərindən söhbət salarkən belə bir tarixi paraleli xüsusi göstərmək lazımdır ki, Heydər Əliyev milli varlığımızın təminatı olan müstəqillik konsepsiyasını işləyərkən sabiq Fransa prezidenti F.Mitteranın Avropa konfederasiyası, ABŞ prezidenti C.Buşun (ata) bütöv demokratik Avropa, Almaniyanın xarici işlər naziri Q.Qenşerin Avropada yeni dünya nizamı haqqında konseptual mülahizələri irəli sürülürdü. Deməli, Azərbaycan üçün o dövrdə öz müstəqilliyini təsdiq etdirmək dünya birliyinə tədricən inteqrasiya etmək zərurəti idi. Bu mənada müstəqillik konsepsiyasını zamanın konkret sosial-siyasi vəziyyət məcrasında nəzərdən keçirmək lazımdır. Məsələ burasındadır ki, konsepsiyanın işlənildiyi ziddiyyətli dövrdə, yəni Azərbaycanda 80-ci illərin sonu və 90-cı illərin əvvəlində fərdi, ictimai və milli şüur haçalanmışdı. Kütləvi şüurda qarşıdurmaya və başdan-başa dağıdıcılığa olan meyil sosial həyatın təşkilinin pozitiv prinsiplərini üstələyirdi. Sovet rejiminin struktur böhranının tələblərini analitik təhlil edən Heydər Əliyev görürdü ki, 1989-cu ildən başlayaraq yenidənqurmanın əsas problemlərinin həllinin uğursuzluğa düçar olması nəticəsində ölkə uçurum qarşısındadır. Yeniliklərlə ayaqlaşan idarəçilik konsepsiyasının olmaması və rəhbərliyin açıq-aşkar zəifliyi və acizliyi ucbatından yenidənqurmanın "sosializmi yeniləşdirmək" kimi ritorik nəzəriyyəçiliyə aludə olmuş Moskva "memarları" tarixi məqamı ötürmüş, mərkəzin yeni orqanları isə səriştəli qərar qəbul etmək qabiliyyətini itirmişlər. Belə halda, onların fikrincə, kontinental imperiyanın iflası daha geniş miqyas, qlobal xarakter alacaq və bu, yeni demokratiyaların müstəqillik uğrunda mübarizəsinə qlobal təsir göstərəcəkdir. Sonralar dünya

miqyasında baş verən qlobal transformasiya prosesləri, onların yeni demokratiyaların formalaşmasına təsiri ulu öndərin müdrik uzaqgörənliyini təsdiq etdi.

Bəs Heydər Əliyevin müstəqillik konsepsiyasının yaşarlığı və həyatiliyi nədədir? Bunun nəzəri fikir tariximizdə yeri və önəmliliyini şərtləndirən amillər hansılardır?

Birincisi, özünün müstəqillik konsepsiyasını işləyərkən ulu öndər konkret və real cəmiyyətin iqtisadi, siyasi, sosial və mənəvi-əxlaqi sahələrinin bütün kompleks problem və qayğıları ib real Azərbaycan gerçəkliyindən çıxış edirdi. Lakin o, həmişə "qlobal düşünüb lokal hərəkət etmək lazımdır" prinsipinə riayət edərək Azərbaycan xalqının müstəqilliyinin qorunmasını dünya hadisələri məcrasında həll etməyə çalışmışdır. Təcrübəli dövlət başçısı diplomatiyanın belə bir ümdə prinsipindən çıxış etmişdir ki, daxildə aparılan nadan və səriştəsiz siyasət ölkənin nəinki dünya birliyinə daxil olmasına mane olur, daha çox, məsələn, Azərbaycanın nümunəsində götürsək, xaricdə onun başına gələn müsibətlərə laqeyd münasibət yaradır. Xalqımız cəbhəçilərin hakimiyyətdə olduğu dövrdə ölkəmizdə baş verənlərin timsalında bunun şahidi olmuşdur. Dünya proseslərindən kənarda qalmağın xalqın tarixi şüuruna, onun milli identifikasiyasına vurduğu mənəvi ziyanı başa düşmək çətin deyildir. Daxildə isə bu, xalqın etimad hissini öldürmək, onun dövlətçiliyinə olan inamını şərəfsizcəsinə qırmaq deməkdir. Bu mənada Heydər Əliyevin əqidəsincə, milli müstəqillik millətin mədəniyyətini, iqtisadiyyatını, elmini, incəsənətini inkişaf etdirməklə özünü-realizə və özünütəsdiq üçün şərait yaratmaq və bununla başqa dövlətlərdən asılılığı minimuma endirmək deməkdir, çünki, prinsipcə, bütün dünya dövlətləri inteqrasiya şəraitində bir-birilərindən asılıdır.

İkincisi, ümummilli liderin müstəqillik konsepsiyasından belə görünür ki, milli müstəqillik millətin hər bir nümayəndəsinin şüurunda və psixologiyasında öz millətinin keçmişi, bugünü və gələcəyi barədə həqiqətləri dərk etmədən mümkün deyildir. Heydər Əliyevin nəzərincə, müstəqillik xalqın mənəviyyatını qorumaq deməkdir. Bir mənəvi hadisə kimi, o, daim hər bir vətəndaşın milli şüurunda möhkəm yer tutmalıdır. Onun müstəqillik tariximizə düşmüş məşhur "91" - lərin müraciətinə verdiyi cavabların tezisləri ilə tanışlıq deməyə əsas verir ki, ölkənin önəmli ziyalılarının müraciətlərinə cavabı xalqın müstəqilliyinin vacibliyini dərk edən siyasətçinin mənəviyyat seçimidir, milli reallığı fəlsəfi idrak səviyyəsində düzgün və analitik qiymətləndirməyin bariz nümunəsidir. Müraciətə cavabın başlıca leytmotivi belədir: artıq belə yaşamaq olmaz, xalq sosial-siyasi fəlakətdən xilas olmalıdır.

Üçüncüsü, ümummilli liderin müstəqillik konsepsiyasının strukturunda Vətən, Dövlətçilik, Suverenlik, Vətənpərvərlik anlayışları önəmli yer tutur. Vətənimizin taleyi hər bir soydaşımızın taleyi olmalıdır, belə olmasa milli müstəqilliyi qorumaq, onu möhkəmləndirmək mexanizmi zəif olar. Müstəqilliyimizin taleyindən söhbət açarkən ingilis filosofu Arnold Toyubinin bu sözlərini xatırlamalı oluruq: "Biz elə bir dövrdə yaşayırıq ki, tarix hamımıza meydan oxuyur". Həqiqətən də, Azərbaycanın müstəqilliyi qarşısında tarixi məsuliyyəti dərk edərkən ən yeni tariximizdə əslində dövlətçiliyin olduqca təhlükəli dövrü kimi qiymətləndirilən 1991—1992-ci illərdə və 1993-cü ilin birinci yarısında tüğyan etmiş siyasi, iqtisadi, hərbi anarxiyanı unutmaq olmur. Bu, müstəqillik tariximizin elə məqamıdır ki, bütün dövrün tədqiqatçıları bu problemə labüdən toxunmalı olacaqlar. Ulu öndərimiz o dövrdəki vəziyyəti realistcəsinə qiymətləndirərək belə bir haqlı nəticəyə gəlmişdi ki, 1991-1993 - cü illər Azərbaycanın müstəqilliyi tarixində nəinki itirilmiş illər hesab olunur, həm də bu illərdə Azərbaycan "ölüm, ya olum" dilemması qarşısında qalmışdı. Məlumdur ki, hələ klassik alman fəlsəfəsinin baniləri millətlərin tarixi inkişafını dövlət quruluşu ilə bağlayırdılar. Azərbaycan xalqının müstəqilliyi barədə dövlətçilikdən və suverenlikdən kənarda hər hansı söhbət predmet məzmunundan məhrumdur. Xalqın dünya birliyi tərəfindən tanınmış dövləti olmasa, onun öz müstəqilliyini müdafiə etməyin hüquqi imkanları da məhdud olur. Buna görə də, Azərbaycan dövlətçiliyinin təkmilləşdirilməsi və suverenliyinin möhkəmləndirilməsi, eyni zamanda, xalqın milli müstəqilliyinin müdafiəsinin əsaslarının möhkəmləndirilməsi deməkdir. "Azərbaycan Respublikası milli dövlətçilik quruculuğu yolunda müvəffəqiyyətlər qazanaraq şərəfli gələcək istiqamətində inamla addımlayır" - ulu öndərin bu sözlərində mühüm bir ideya durur: milli dövlətçiliyi qorumaqla, möhkəmləndirməklə xalq özünün müstəqilliyinin möhkəmləndirilməsi üçün müstəsna təminat yaradır. Bu hadisələr bir daha belə bir tarixi həqiqəti üzə çıxardı ki, böhranlı anlarda xalqlar və onların liderləri bir qayda olaraq, tarixin sınaqlarından çıxmış öz milli təcrübəsinə müraciət etməli olur. İntensiv cərəyan edən transformasiya prosesləri xalqların ənənəvi təcrübəsinə yenidən baxmağı tələb edir. Bu gün aydın olur ki, cəmiyyətin ənənəvi təcrübəsinin potensialı zamanın sərt tələblərinə cavab verməyə hazır deyil və xalqlar labüd olaraq qaçılmaz seçim qarşısında qalmışdır: ya millətin yaradıcı potensialını artırıb yeni reallıqların mürəkkəbliyinə uyğun həyat keyfiyyətini formalaşdırmaq, ya da mədəniyyətin dərin qatlarında durğunluq keçirən dəyərlərlə kifayətlənib qloballaşmanın tələbləri qarşısında təslim olmaq. Bunlar dövlətçiliyin möhkəmləndirilməsinin, vətənin gələcəyini qorumağın mühüm sosial-ideoloji təminatıdır. Ona görə də Heydər Əliyevin müstəqillik konsepsiyasında "vətən" kateqoriyası mücərrəd anlayış olmayıb, övladlarının ölkəsinin

nemətlərindən azad və bərabər bəhrələnən suveren Azərbaycan vətəndaşlarının məkanı kimi təqdim edilir. Hər bir xalqın yaşadığı torpaq onun ruhi beşiyidir, çünki vətən hissi özündə millətin mənəvi-əxlaqi dəyərlərini ehtiva edir. Bu gün insanlarımızın vətənpərvərlik hissi, onların öz doğma etnik beşiyinə ülvi məhəbbəti yeni dünyagörüşü sisteminin təməlini təşkil edir. Ulu öndər millətin mənəvi və əxlaqi dayağı kimi, onun sosial yaddaşının mühafizəçisi və mənbəyi olan tarixin ən yüksək rolunu vətənpərvərliyin, vətən amalının formalaşmasında görür. O, tez-tez qeyd edirdi ki, "bizim tariximiz bizə ibrət dərsi verməlidir". Bu kəlamda Heydər Əliyevin əxlaqi və dünyagörüşü kredosu ifadəsini tapmışdır. Tarixi unutqanlıq millətin ruhunu öldürür, onun şərəf və ləyaqətinə ziyan vurur. Milli tariximizi bilmədən, keçmişimizə pozitiv yanaşmadan, tarixən itirdiklərimizi tənqidi dərk etmədən və əldə etdiklərimizin qədrini bilmədən, eynilə də tarixi hadisələr və faktlardan razılıq hissi, yaxud məyusluq keçirmədən özündə vətənpərvərlik duyğusunu tərbiyə etmək, ulu babalarımızın paк adını və nəcib işlərini təhriflərdən və qarayaxanlardan qorumaq mümkün deyildir. Özünün ictimai görüşlərində Heydər Əliyev belə bir düzgün metodoloji nəticəyə gəlir ki, özünüdərk çərçivəsində millət Vətən tarixinin bütün mühüm tarixi fakt və hadisələrinə yetkin vətəndaşlıq münasibətini müəyyənləşdirməli, tarixi prosesin məntiqinə ardıcıl riayət edərək dəyərlərə yeni düşüncə mövqeyindən baxmalı, özü də tarixə heç bir siyasi məqsədə uyğunluq ünsürləri daxil etməməlidir. Elə buna görə də təsadüfi deyil ki, özünün müstəqillik konsepsiyasında vətənin taleyi üçün məsuliyyət hissini mühüm struktur elementi kimi təqdim edir. Ulu öndərin Bakıda (avqust 1993) ümumrespublika müşavirəsindəki çıxışından bir epizodu xatırlayaq: "Biz, yəni Azərbaycan xalqı, böyük imtahan içindəyik və bu imtahandan ləyaqətlə çıxmalıyıq. Hər bir Azərbaycanlı, əgər onun qəlbində doğrudan da, azərbaycanlı hissiyyatı varsa, nəbzi Azərbaycan xalqının ümumi nəbzi ilə həmahəng vurursa, bu yolla getməlidir". Ölkəmizin ərazisində yaşayan hər bir millət və xalq vətən qarşısındakı vəzifəsini aydın dərk edib öz fəaliyyətini onun çiçəklənməsinə istiqamətləndirməlidir. Çünki Azərbaycan Respublikası onların hamısı üçün vətən ocağıdır. Heydər Əliyev vətənçilik və vətənpərvərlik ideyalarının müstəqil Azərbaycanın gənclərinin düşüncəsində möhkəm yer tutmasının müstəsna əhəmiyyətini qeyd edirdi: "Siz də (Gənclər - müəllif) Azərbaycan xalqına xidmət edərək ... vətənpərvərlik hissi ilə yaşayaraq özünüzü qəhrəman kimi, cəsur, qüdrətli bir insan kimi formalaşdırmalısınız və qarşıdan gələ biləcək bütün çətinliklərə hazır olmalısınız". Ulu öndərin "Mən - milli ordu - müstəqillik" triadası mühüm əxlaqi mahiyyət daşıyır. O, xalqını inandıra bilmişdi ki, güclü milli ordunun yaradılması müstəqilliyin qorunmasında milli ləyaqət və şərəf işidir.

Heydər Əliyevin müstəqillik konsepsiyasının yaşarlılığı və müasirliyi ondadır ki, o, mücərrəd seyrçilikdən uzaqdır. Müasir qlobal reallıqları düzgün qiymətləndirən ulu öndər Azərbaycan xalqının müasir sivilizasiyada özünütəsdiqi məsələsinin həllində milli ideologiyanın rolunu xüsusi qeyd edir. Məlumdur ki, qloballaşma dövlətlərin sabit inkişafı, ərazi bütövlüyü və idarəetmə sistemlərinin rəvan işləməsi, iqtisadi-siyasi inteqrasiyada dövlətlərin, xüsusilə yeni demokratiyaların identikliyi kimi həyati problemləri ciddi təsirlərə məruz qoyur. Lakin bu prosesdə milli mənliyin identikliyini qoruyub saxlayan çox mühüm sarsılmaz ideoloji silah azərbaycançılıqdır. Azərbaycanın müstəqilliyinin qorunub möhkəmlənməsinin labüd ideoloji təməli və təminatı ölkənin hər bir vətəndaşının özünü əsl azərbaycanlı hiss etməsi, azərbaycanlılara məxsus şüuru ilə hərəkət etməsidir. Soydaşlarımızın mənlik ruhunun saxlanmasında, onların dünya sivilizasiyasında bir millət kimi özünütəsdiqində azərbaycançılıq ideologiyasının danılmaz rolunu dəfələrlə vurğulayan ulu öndərimiz bu ideologiyanı heç bir fikir müxtəlifliyinə məruz qoymamağı tövsiyə etmişdir. O yazırdı: "Əgər müxalifətdə olan qüvvələr Azərbaycanın müstəqilliyini qorumaq tərəfdarıdırlarsa, deməli, burada fikir müxtəlifliyi yoxdur. Bizim ideologiyamız belədir". Heydər Əliyevin nəzəri irsində azərbaycançılıq milli həmrəyliyin ideologiyası kimi işlənmişdir. Ona görə də, onun fikrincə, dövlətçilik, vətənçilik kimi fenomenlər azərbaycançılıq ideologiyasından bəhrələnməli və bunlar da öz növbəsində azərbaycançılığın sosial-milli məzmununun saflığını qorumalıdırlar. Maarifçilik fəlsəfəmizin tarixi-mənəvi dəyərlərindən bəhrələnmiş ümummilli liderimiz vətən, millət və milli dövlət anlayışlarını azərbaycançılıq ideyası çərçivəsində vəhdətdə götürərək bu sintezi milli bütövlüyün təmin edilməsi, onun həmrəylik ruhunda inkişaf etdirilməsinin mühüm sosiomədəni mexanizmi kimi işləmişdir. Azərbaycançılıq ideyası müharibə gedən ölkəni fəlakətdən çıxarmaq üçün millət və cəmiyyət qarşısında həmrəy qüvvələri birləşdirmək simvoluna çevrilmişdi. Ulu öndərin "azərbaycanlının Azərbaycandan başqa vətəni yoxdur" kəlamı nəinki ölkə daxilindəki vətəndaşlarımız, hətta xaricdəki soydaşlarımız üçün də milli həmrəylik manifestinə çevrilmişdi. Ulu öndərin bilavasitə təşəbbüsü ilə Bakıda keçirilmiş dünya azərbaycanlılarının qurultayı da göstərdi ki, həmrəylik fenomeni bütün dünyadakı soydaşlarımızın milli inkişafı üçün misilsiz sərvətdir. O, soydaşlarımıza daim belə bir əqidəni aşılayırdı ki, tariximizdə ağır səhifələr və böhranlı məqamlar az olmayıb, amma ulu babalarımız ruhdan düşməmişlər. Onlar öz qeyrətinə güvənərək qüvvələrini bir yerə toplamış, öz əxlaqını və simasını itirməmişlər, özlərini ləyaqətlə qorumuşlar. Ona görə də biz tariximizə olduğu kimi yanaşaraq düşmən üzərində qələbəyə köklənən tarixi həqiqətə xidmət etməliyik.

Acınacaqlı səslənsə də, onilliklər ərzində bu həqiqəti dərk etmiş və ya bəzən dərk etsək də, ona qarşı mübarizə aparmaq iqtidarında olmamışıq. Bu tarixi həqiqət ilk dəfə xalqına və dünya ictimaiyyətinə rəsmi dövlət səviyyəsində bütün qətiyyətlə Heydər Əliyev tərəfindən elan edildi. Azərbaycan Respublikasının Prezidenti olarkən onun imzaladığı "1948-1953 - cü illərdə azərbaycanlıların Ermənistan SSR-in ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərmanda deyilir: "SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953 - cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar... Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin ...törədilən cinayətlərin təşkilində iştirakı da az olmamışdır". Fərmanın başlıca qayəsi budur ki, tarix xalqın yaddaşıdır, yaddaşdan isə heç bir şey atmaq lazım deyil, tarixi həqiqətlər özümüzü dərk etmək üçün vasitədir. Lakin heç bir şey unudulmamalı, deməli, yeni fəlakətlərə yol verilməməlidir. Bu Fərman nəinki tariximizi dərindən öyrənməyə, həmçinin milli sərvətimizin, milli-mənəvi dəyərlərimizin qorunmasının təminatçısı olan müstəqilliyimizin qədrini bilməyə, onu qorumağa və daha da möhkəmləndirməyə səsləyir.

Ümummilli lider həmişə qeyd edirdi ki, "biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik". Bununla bağlı Heydər Əliyevin milli-mənəvi dəyərlərin qorunub saxlanması, inkişaf etdirilməsi haqqında 13 avqust 2001-ci il tarixli bəyanatı müstəsna əhəmiyyət kəsb edir. Həqiqətən də, öz mənəvi-əxlaqi dəyərlərini yalnız azad və müstəqil xalq saxlaya bilər. Bu bəyanat, hər şeydən əvvəl, azərbaycançılıq ideologiyasına sadiq qalan xalqı öz tarixi köklərinə, əcdadlarının yaratdığı milli-mənəvi dəyərlərə daha sıx bağlı olmağa çağırır.

Deyilənlərlə bağlı ulu öndərimizin müstəqillik konsepsiyası barədə çoxlu önəmli fikirlər və mülahizələr söyləmək mümkündür. Bu, əslində monoqrafik bir mövzu olub, tədqiqatçıları dərindən düşündürməlidir. Lakin məqalə çərçivəsində məhdudluğa baxmayaraq, bir daha milli liderlik probleminə toxunmaq istərdik. Heydər Əliyev bir çox çıxışlarında səriştəsiz, xalqdan uzaq "liderləri" hakimiyyət üçün barışmaz qüsur saymışdır.

Heydər Əliyevin liderliyi onun müstəqillik konsepsiyası ilə üzvi bağlıdır, çünki bütövlükdə hakimiyyəti idarə etmək konsepsiyası nə qədər yüksək nəzəri-praktik səviyyədə işlənsə də, bacarıqlı lider olmadan onu rasional həyata keçirmək mümkün deyildir. Vaxtilə De Qoll demişdir ki, "Böyük işləri heç zaman sözçülüklə başa çatdırmaq olmayıb". Heydər Əliyev intellekti xalq məfkurəsinin qaynaqlarından bəhrələnən, daha mürəkkəb, dinamik reallıqlarımızın mənimsənilməsi və dərkinin qüdrətli nəticəsi, siyasətçi şəxsiyyətinin özünütəsdiqinin vacib vasitəsidir. Ulu öndərin dövlətçilik fəaliyyətinin timsalında aydın oldu ki, müstəqilliyin möhkəmləndirilməsinə yönəlmiş milli inkişaf siyasətini yalnız intellektual düşüncə gərginliyi sayəsində reallaşdırmaq mümkündür. Real praktika da sübut etdi ki, məhz dərin tarixi təcrübəyə və geniş nəzəri bilik diapazonuna malik dövlət adamları çox zaman bənzəri olmayan, yalnız milli reallıqları dərindən başa düşdükləri təqdirdə məsuliyyətli tarixi qərarlar qəbul edirlər. Alman filosofu Hegelin zaman keçdikcə dəyərini itirməyən kəlamı var: "tarixdən ibrət götürməyənlərə, onun barəsində yalnız fəlsəfəçilik edən və deməli, onu nəzərə almayanlara tarix heç nə öyrətmir, güllərin təqsiri yoxdur ki, korlar onları görməyir. Tarix, həmçinin onu öyrənmək istəməyənlərə də ibrət dərsi verir. Lakin o, bu dəfə insanları nadanlıq və biganəliyə görə cəzalandırır". Zaman xalqımızın taleyinə müstəqilliklə, ulu öndərin əzmkar fəaliyyətilə yeni həyat keyfiyyəti gətirmişdir. Tarixi idrakın üstün dəyərlərini, milli reallıqların özünəməxsusluğunu xalq çox zaman öz əzmkar yaradıcı fəaliyyəti ilə yanaşı, ümummilli liderin dühası ilə dərk edir. Azərbaycanda Xalq Cəbhəsi-Müsavat cütlüyünün hakimiyyəti dövründə xalqın dövlətçiliyimizə itmiş inamını məhz Heydər Əliyev dühası və intellekti qaytardı. Şübhə etməmək olar ki, ulu öndərin sarsılmaz qətiyyəti nəticəsində əldə edilmiş sabitlik bir sosial fenomen kimi gələcəkdə Azərbaycan dövlətçiliyi ilə bağlı politoloji ədəbiyyatda siyasi təcrübənin xarizmatik nümunəsi kimi öyrəniləcəkdir. Yalnız xalqına xidmət edən və onun etimadını doğruldan siyasətçi lider ola bilər. İtaliya politoloqu Antonio Menegetti maraqlı bir mülahizə söyləyir: "Lider ona görə rəhbərdir ki, başqalarından çox və yaxşı iş görməyi bacarır. Varlıq onu həyata xidmət etmək üçün irəli sürmüşdür". Tarixi həqiqət düşünən fərdin mənlik şüurunun formalaşmasında müstəsna rol oynayır, o, yüksək məsuliyyət hissilə dərk edilir. Belə bir keyfiyyət liderlik düşüncəsinin inkişafı üçün vacib şərtlərdən biridir, çünki o, tarixi təcrübə qazanmağın mühüm qaynaqlarından biridir. Əsl lider, əsl siyasətçi dövrün, zamanın, ilk növbədə xalqının tələbatlarına vaxtında həssas reaksiya verməyi bacarır. Azərbaycanın timsalında dünya birliyi bir daha inandı ki, xalqının müstəqilliyi uğrunda barışmaz mübarizə aparan Heydər Əliyev simalı lider ölkəsi ətrafında risk amilinin artdığı

bir zamanda canlı praktikadan və yaradıcı təbii dəyərlərdən bəhrələnəndə cahanşümul enerji nümayiş etdirir, universal fəaliyyət subyekti kimi hərəkət edir. Ulu öndərin fəaliyyəti sivilizasiyalı dünyanı bir daha inandırdı ki, iri və qüdrətli dövlətlərin başçıları vaxtilə az tanınan Azərbaycan məkanında siyasət arenasında intellektual siyasətçi kimi xalqının rəğbətini qazanmış görkəmli lider və strateqlə iş görməli olacaqlar. Bir vaxtlar Avropa Şurası Parlament Assambleyasının sədri Lord Rassel Constonun Prezident Heydər Əliyevə söz verərkən : "İndi siz böyük təcrübəyə malik olan dünya siyasətçisinə qulaq asacaqsınız" deməsi bu həqiqəti bir daha təsdiq etdi.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətində əldə edilən hər bir uğur ulu öndər Heydər Əliyevin zəkasının təcəssümü, onun irsən qoyub getdiyi milli tərəqqi ideyalarının təzahürüdür. Onun 2003-cü ildə prezidentlik fəaliyyətinə başlaması Azərbaycanın tərəqqi və inkişaf yolu ilə irəliləməsində yeni mərhələ olmuşdur. Həmin il müstəqilliyimizin daha da möhkəmləndirilməsi, ölkədə sabit siyasi sistemin, çox-ukladlı iqtisadi strukturun intensiv formalaşması ili oldu. Məhz o vaxtdan başlayaraq respublikada demokratikləşmə prosesləri genişlənmiş, ölkəmizin dünya transformasiya proseslərinə inteqrasiyası daha intensiv xarakter kəsb etmiş, milli iqtisadiyyatın daha da inkişafı üçün mühüm sosial-siyasi baza yaranmışdır. Heydər Əliyevin siyasət məktəbinin layiqli yetirməsi olan İlham Əliyevin böyük siyasətdə atdığı inamlı addımlar nəticəsində Azərbaycanda təkcə sosial-iqtisadi sistemdə deyil, həm də siyasi və ictimai təsisatlarda əsaslı yeniləşmələr olmuş, səmərəli intensiv islahatlar aparılmışdır. 15 oktyabr 2008-ci ildə Azərbaycanda keçirilən prezident seçkilərinə xalqın, milli elitanın və beynəlxalq müşahidəçilərin verdiyi yüksək qiymət deyilənləri bir daha sübut etdi. Prezident İlham Əliyev demişdir: "Bizim təcrübəmiz onu göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur. İqtisadi, siyasi və sosial islahatların paralel şəkildə aparılması Azərbaycanı hərtərəfli inkişaf etdirir, ölkəmiz üçün çox lazım olan sabitliyi möhkəmləndirir, ictimai-siyasi vəziyyətə müsbət təsir göstərir. Ona görə də siyasi və iqtisadi islahatların davam etdirilməsi zamanın tələbidir. Əgər biz doğrudan da, müasir, güclü ölkə yaratmaq istəyiriksə, bunu etməliyik. Bu işdə dövlətin üzərinə böyük vəzifələr düşür. Biz buna birlikdə nail olmalıyıq".

Ulu öndərin xalqımızın, cəmiyyətimizin milli inkişafına yönəlmiş müstəqillik konsepsiyasını yaradıcılıqla davam və inkişaf etdirən Prezident İlham Əliyevin milli inkişaf konsepsiyasının başlıca qayəsi ölkədə demokratik transformasiya proseslərini ən yaxın müddətdə başa çatdırmaq, vətəndaş cəmiyyəti strukturlarının və təsisatlarının formalaşmasına başlamaq səyləri ilə həyata keçirilən "sabitlikdən inkişafa doğru" ideyasıdır. Ölkə Prezidentinin əzmkar fəaliyyətini qeyd edərkən ulu öndərin bu müdrik sözləri yada düşür: "Sizi əmin edirəm ki, Azərbaycan xalqı indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin, Azərbaycan xalqının milli azadlığının keşiyində duracaq və bu müstəqilliyi cəsarətlə qoruyub saxlayacaqdır".

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 17 cilddə. VI cild, Bakı: Azərnəşr, 1997-2007, 800 s.
2. Məqsədimiz Azərbaycanın hərtərəfli inkişafına, xalqın rifahının daim yüksəlməsinə nail olmaqdır. Azərbaycan Prezidenti İlham Əliyevin nitqi // Dirçəliş-XXI əsr. 2004, № 78-79, s. 21-25
3. Abdullayev V. Azərbaycan yeni diplomatiya məkanında. Bakı: Azərnəşr, 2000, 412 s.
4. Əliyev O - Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. Bakı: Zahid, 2003, 246 s.
5. İsmayılov Ə ., Əliyev Q. Heydər Əliyev və milli ləyaqət fəlsəfəsi. Bakı: Təbib, 1998. 149 s.
6. Kazımlı X. Böyük siyasətin davamı. Bakı: Nurlan, 2007, 768 s.
7. Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı: Azərnəşr, 2003, 340 s.
8. Mehdiyev R. Yeni siyasət: inkişafa doğru. I-II cildlər. Bakı: Oskar MTM, 2008, 581, 343 s
9. Xudiyev N. Xalqın İlhamı. Bakı: Azərnəşr, 2000, 300 s.
10. Гегель. Сочинения, том III. М .: Издательство политической литературы, 1934. 683 с.
11. Менегетти А. Психология лидера. М.: НБФ, 2002, 31-40 с.

**«Dirçəliş XXI əsr».**–2009.-№133-134.–S.101-110.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA DEMOKRATİK DÖVLƏT QURUCULUĞU

**İradə HÜSEYNOVA,**
*təhsil nazirinin müavini, tarix elmləri doktoru,*
*professor, YAP Siyasi Şurasının üzvü*

Liderlik institutu hər zaman siyasətşünas və filosofların əsas müzakirə mövzularından olmuş, bu fenomeni dərindən öyrənməyə çalışmış böyük mütəfəkkirlər bir-birindən maraqlı, dəyərli nəzəriyyələr yaratmışlar. Geniş fikir müxtəlifliyinə rəğmən, ümumi qənaət bundan ibarətdir ki, iqtisadi potensialından asılı olmayaraq, hər bir dövlətin hərtərəfli inkişafı milli lider amili ilə bilavasitə bağlıdır. Liderlik anlayışının başlıca tərkib hissəsini şəraiti dəqiq qiymətləndirmək, qarşıda duran vəzifələrin həlli yollarını düzgün müəyyənləşdirmək, hansısa qərarın yerinə yetirilməsi naminə insanların zəkasına və enerjisinə pozitiv təsir göstərmək, onları konkret ideya, fikir və məqsəd ətrafında səfərbər etmək, idarə olunanların liderin qəbul etdiyi qərarları, verdiyi göstərişləri öyrənməsinə və fəal müdafiə etməsinə nail olmaq kimi mühüm keyfiyyətlər təşkil edir. Liderlik bir tərəfdən liderin cəlbedici ideyalar irəli sürməsini, insanlara fəal və ciddi təsir göstərməklə onları idarə etməsini, digər tərəfdənsə liderə inanmağı, ona tabe olmağı, insanların onun ardınca getməyə hazır olmasını, qəbul etdiyi qərarlarda bilavasitə iştirakını əks etdirir.

Hər bir xalqın milli azadlığa və dövlət müstəqilliyinə qovuşması üçün üç mühüm şərt tarixi şans, milli iradə və liderə malik olmasıdır. Liderlik funksiyasını öz şəxsi nüfuzu, yüksək təşkilatçılığı, fəallığı, təşəbbüskarlığı, yaradıcılığı və enerjisi ilə fərqlənən, xüsusi idarəçilik və xarizmatik keyfiyyətlərinə malik olan, xalqın böyük hörmət və sevgisini qazanan dahi insanlar yerinə yetirirlər. Bu statusa yiyələnmiş şəxslərin fəaliyyətinin universallığı onunla şərtlənir ki, insan qruplarının, təşkilatların və hərəkatların birgə fəaliyyətinin bütün növləri liderə ehtiyac duyur. Siyasi lider isə sadəcə, siyasi proseslərə rəhbərlik edən, cəmiyyətin idarə olunması funksiyalarını həyata keçirən, siyasi təşkilatları və hərəkatları öz ardınca aparan şəxs deyil. O, hər şeydən əvvəl, hadisələrin gedişini dəyişdirməyə, siyasi prosesləri istiqamətləndirməyə qadir olan şəxsiyyətdir. Görkəmli şəxsiyyətlər özləri situasiya yaradır və onu lazımi istiqamətə yönəltməklə qarşıya qoyduqları məqsədləri reallaşdırmağa nail olurlar. Bacarıqsızlar isə bu situasiyaların əsirinə çevrilir, hadisələrin axarına düşüb üzürlər.

Tarixən hər bir xalqın tarixi müəyyən mənada ona rəhbərlik etmiş böyük siyasi liderlərin, parlaq şəxsiyyətlərin çoxşaxəli fəaliyyətində təsəccümünü tapmışdır. XX əsrdə Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyət, dünyanın görkəmli dövlət xadimlərindən biri, ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında yalnız insanlarımızın istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini məhz ötən əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla əsrin sonlarına doğru müstəqil Azərbaycan dövləti kimi əzəmətli bir reallığa qovuşdurmuş, qurub-yaratdığı bu dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanın müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir.

Azərbaycan dövlətçiliyinin müasir tarixinə öz adını əbədi həkk etmiş bu nadir tarixi şəxsiyyətin, fenomenal siyasi xadimin ölkəmizə rəhbərlik etdiyi illər intibah, milli tərəqqi, milli oyanış, nəhayət, müstəqil dövlət quruculuğu dövrü kimi qəbul edilir. Heydər Əliyevin siyasi və dövlət fəaliyyətinin ən böyük nəticəsi quruculuğuna bilavasitə rəhbərlik etdiyi və xalqımıza bəxş etdiyi mükəmməl milli dövlət, müstəqil Azərbaycan Respublikasıdır.

Böyük strateq Heydər Əliyev hələ hakimiyyətinin birinci mərhələsində milli təfəkkürümüzü repressiya xofundan, təzyiq və təhdidlərdən xilas etmiş, milli şüurun yüksəlişinə xidmət edən ardıcıl tədbirlər həyata keçirmişdir. Müdrik rəhbərin ölkəmizə birinci rəhbərliyi dövrünə qədər daha çox sovet tarixşünaslığının təmsilçiləri kimi yeni quruluşun ideologiyasının formalaşdırılması və bu ideologiyanın kütlələrə təlqini işilə məşğul olan Azərbaycan tarixçiləri keçmişimizin araşdırılmasına başlayaraq xalqımızın şanlı tarixinin qələmə alınması istiqamətində ilk addımlarını atmağa başladılar. Yaranmış əlverişli imkanlardan istifadə edərək, Atabəylər dövlətinin tarixini yazan akademik Ziya Bünyadov 70-ci illərin ortalarında dövlət mükafatına layiq görüldü. Azərbaycanın ədəbi dil normalarını kitablar halında sabitləşdirən dilçi alimlərimiz dövlət mükafatları ilə təltif edildilər. Bakı bütün dünyada Türkologiya elminin mərkəzinə çevrildi, millətin siyasi baxımdan təşkilatlanmasının, özgürlüyünə nail olmasının din və dil faktorlarından asılılığını nəzərə alan Heydər Əliyev hakimiyyətinin ilk mərhələsində dil amilini ən əhəmiyyətli məsələlərdən biri kimi gündəmə gətirdi.

Ümummilli liderin Azərbaycanda rəhbərliyə gəlişi, eyni zamanda cəmiyyətdə hüquqi münasibətlər sisteminin xarakterində pozitiv dəyişikliklərə səbəb olmuş, cəmiyyətdə hüquqi təfəkkürün, hüquqi düşüncə

tərzinin, hüquqi mədəniyyətin, ümumilikdə, hüquq elminin inkişafının keyfiyyətcə yeni mərhələsi başlanmışdır. Həmin illərdə respublika rəhbərliyi səviyyəsində keçirilən müxtəlif tədbirlər də məhz bu məqsədlərin real həyatda tətbiqi məqsədini daşımışdır. Azərbaycan KP MK-nın 1970-ci il dekabrın 4-də qəbul etdiyi "Zəhmətkeşlərin hüquqi tərbiyəsini yaxşılaşdırmaq tədbirləri haqqında" qərarı da məhz Heydər Əliyevin təşəbbüsü, ideya müəllifliyi və səyləri ilə hazırlanaraq qəbul olunmuşdur. Bu qərarda orta və ali ixtisas məktəblərində hüququn əsaslarının tədrisi və öyrənilməsi işini yaxşılaşdırmaq, tədris müəssisələri vasitəsilə hüquqi biliklərin təbliğini gücləndirmək, qanunvericiliyin ən aktual məsələlərinin gənc nəslə öyrədilməsinə və izah olunmasına, hüquq qaydalarının möhkəmləndirilməsinə və dövlət mülkiyyətinin qorunmasına yönəldilən kütləvi-siyasi tədbirlərin keçirilməsi sahəsində tədbirlər planı işləyib hazırlamaq tələbi irəli sürülürdü. Məzmunundan da göründüyü kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə qəbul olunmuş bu qərar o dövrün sosial eybəcərliklərinə, acı ictimai-mənəvi gerçəkliklərinə, o zamankı partiya sovet təsərrüfatı elitasının volyuntarizminə özbaşınalığına, hüquqi nihilizm və inzibati amirlik sisteminin digər tipik təzahür formalarına qarşı kəskin etiraz və ağıllı müqavimət demək idi. O zaman bu qərarın SSRİ miqyasında böyük əks-sədası olmuş, onun müddəalarının həyata keçirilməsi məqsədilə kompleks tədbirlər hazırlanaraq həyata keçirilmişdi.

Ötən əsrin 70-80-ci illərindən respublikamızda milli müstəqilliyə etibarlı zəmin formalaşdıran sosial-iqtisadi, hüquqi və mənəvi intellektual mühit formalaşdıran ulu öndər Heydər Əliyev xalqımızın məhz bu möhkəm bünövrə üzərində azadlıq, istiqlaliyyət və müstəqillik ideallarına qovuşmasını təmin etmişdir. Bu günün zirvəsindən baxdıqda, o illərdə Heydər Əliyevin xalqının hüquqlarını qoruyan, haqqı nahaqqa verməyən, milliləşdirmə siyasəti aparmaqla həm də ziyalı elitasını sərt təqiblərdən qoruyan fenomenal lider keyfiyyətləri daha qabarıq sezilir. Azərbaycan xalqı dahi liderinin rəhbərliyi altında yüksək iradə sərgiləməklə, milli yaddaşını, mənəvi, əxlaqi dəyərlərini, tarixi dövlətçilik ənənələrini qorumaq əzmini toparlaya bilmiş, dövlət müstəqilliyi üçün zəruri potensial formalaşdırmışdır. Keçmiş imperiya daxilində hansı qlobal proseslərin getdiyini daha dərindən müşahidə etmək imkanına malik olan Heydər Əliyev Azərbaycanın nə vaxtsa müstəqillik əldə edəcəyini öncədən görmüş, bu prosesi sürətləndirən mühüm addımlar atmışdır.

Qeyd etmək lazımdır ki, Heydər Əliyevi rəhbər kimi başqalarından fərqləndirən mühüm bir keyfiyyət ondan ibarətdir ki, onun dövlətçilik və siyasi fəaliyyəti bir-birinə zidd olan iki müxtəlif ictimai-siyasi sistemin qovuşuğundan keçmiş və bunların imkanlarından bacarıqla istifadə edib hər bir dövrün ictimai-siyasi tələblərinə uyğun olaraq özünün bütün varlığını Azərbaycan Respublikasının yüksəlişinə, xalqın mənəvi-mədəni inkişafına həsr etmiş və ölkəmizin hərtərəfli tərəqqisini təmin etmişdir.

Ümummilli lider 1982-ci ildən sonra SSRİ-ni idarə edən aparıcı simalardan biri kimi Kremldə çalışdığı dövrlərdə də Azərbaycanın gələcək müstəqilliyinə xidmət edən bir sıra addımlar atmış, respublikamıza qarşı ayrı-seçkilik siyasətinə qarşı çıxmış, ermənilərin məkrli torpaq ilhaqı siyasətinə qarşı barışmaz mövqe tutmuş, Qorbaçov rejimini kəskin tənqid etmişdir. Məhz bu qətiyyətli və prinsipial mövqeyinə görə 1987-ci ildə SSRİ KP MK Siyasi Bürosunun üzvlüyündən uzaqlaşdırılan ulu öndər Heydər Əliyev sonrakı mərhələdə də Azərbaycanla bağlı siyasi proseslərə biganə qalmamış, 90-cı illərin əvvəlində Naxçıvana qayıdaraq zamanın diktəsi ilə siyasi proseslərdə fəal iştirak etmiş, Azərbaycanın dövlət müstəqilliyinə real zəmin formalaşdırmışdır. 1991-ci ilin 18 oktyabrında qüdrətli dövlət xadimi Heydər Əliyevin də imza atdığı "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya aktı" ilə ölkəmizin istiqlaliyyəti bütün dünyaya bəyan edilmişdir.

1991-ci ilin oktyabrından 1993-cü ilin iyununadək ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər, eyni zamanda ölkənin müstəqilliyi üçün real təhdidlərin meydana çıxması, vətəndaş qarşıdurması meyillərinin güclənməsi, hüquqi nihilizmin, xaos və anarxiya mühitinin dərinləşməsi göstərdi ki, ölkəni yaranmış acınacaqlı vəziyyətdən yalnız Heydər Əliyev kimi müdrik və uzaqgörən şəxsiyyət xilas edə bilər. Ümummilli lider 1993-cü ildə xalqın təkidli çağırışına cavab verərək hakimiyyət sükanına keçmiş, ölkədə ictimai-siyasi sabitliyi, qanunçuluğu bərpa etmiş, eyni zamanda insan hüquq və azadlıqlarının təminatına xidmət edən hüquqi islahatların müəllifi olmuşdur.

Ulu öndər Heydər Əliyevin siyasi uzaqgörənliyinin, prinsipiallığının və siyasi iradə nümayişinin məntiqi nəticəsi olaraq 1994-cü ildə "Əsrin müqaviləsi"nin əfsanədən reallığa çevrilməsi ölkənin bütün strateji əhəmiyyətli sahələrinin inkişafına təkan verməklə, Azərbaycanda hüquqi islahatların yeni mərhələdə aparılmasına da geniş imkanlar açmışdır. Böyük strateqin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır. Konstitusiyada hakimiyyət bölgüsü prinsipləri dəqiq əksini tapmış, zamanın tələbilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə fundamental hüquqi zəmin yaradılmışdır.

Konstitusiyada əksini tapmış müddəaların üçdə ikisinin sırf insan hüquqları ilə bağlı olması da ulu öndərimizin insan hüquqlarına necə böyük həssaslıqla yanaşmasının bariz təcəssümüdür.

Azərbaycanın demokratik dövlət olmasını şərtləndirən əsas meyarlardan biri də xalqın hakimiyyətin əsas mənbəyini təşkil etməsi və idarəçilik mandatının yalnız xalqa malik olmasıdır. Öz fəaliyyətində hüququ rəhbər tutmayan, əsas insan hüquq və azadlıqlarını təmin etməyən, qanunun aliliyinə söykənməyən, ictimai həyatın bütün sahələrini qanunlar əsasında idarə etməyən sistem hüquqi ola bilməz. Bu mənada, Azərbaycanda hakimiyyətin əsas mənbəyi kimi xalqı və əsas məqsədi kimi onun maraqlarının təmin edilməsini qəbul etməsi, eyni zamanda hüquqi dövlətin mövcudluğunu şərtləndirir. Respublikamızda dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.

Konstitusiyanın 151-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, beynəlxalq müqavilələr tətbiq edilir. Bu maddə Azərbaycan Konstitusiyasının liberallığını və demokratikliyini bir daha sübuta yetirməklə yanaşı, həm də son 14 ildə ölkədə milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılmasına yaxşı imkanlar açmışdır. Əsas Qanunumuzda əksini tapmış insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Komissiyasının yaradılması və əfvetmə institutunun bərpası da ulu öndər Heydər Əliyevin necə böyük qəlb və mənəviyyat sahibi olduğunu, şəxsiyyətcə böyüklüyünü təsdiqləyir. Bu humanizmin nəticəsidir ki, respublikamızda əfv fərmanlarının imzalanması, məhkumların bağışlanması müsbət ənənəyə çevrilmişdir. Heydər Əliyevin 1993-cü ildən tətbiqinə moratorium qoyduğu ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk ölkə olmuşdur. Müqayisə üçün bildirək ki, o vaxt hətta Avropa Şurasının üzvü olan bir sıra dövlətlər analoji addımı hələ atmamışdılar. Yüksək humanizmin və insanpərvərlik örnəyinin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmiş, 2001-ci ilin 25 yanvarında müstəqil respublikamız Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edilmişdir. Təşkilatla səmərəli əməkdaşlıq Azərbaycanın milli qanunvericiliyinin Avropa standartlarına uyğunlaşdırılmasına, mütərəqqi məhkəmə-hüquq islahatlarının aparılmasına ciddi təkan vermişdir.

Ümummilli lider Heydər Əliyevi böyük şəxsiyyət və insan kimi xarakterizə edən mühüm keyfiyyətlərdən biri də onun yeritdiyi siyasətin yüksək humanizm və insanpərvərlik prinsiplərinə əsaslanması olmuşdur. 1995-2003 - cü illər ərzində Heydər Əliyev tərəfindən 32 əfv fərmanı imzalanmış, bu fərmanlar 3091 məhkuma şamil edilmişdir. Ulu öndərin qanunvericilik təşəbbüsü əsasında Milli Məclis 1996-2003 - ci illərdə 8 amnistiya haqqında qanun imzalamış, 31 mindən artıq məhkum azadlığa buraxılmış və yaxud cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılmışdır. Bu addımlar ciddi tərbiyəvi əhəmiyyət daşımaqla, cəmiyyətdə paк mənəvi dəyərlər, humanizm hissi aşılamış, ölkədə cinayətkarlığın dinamikasının azalmasını təmin etmişdir.

1998-ci ilin 22 fevralında ümummilli lider Heydər Əliyev "insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzalamış, insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası səhih şəkildə müəyyən edilmişdir. insan hüquqları sahəsində proqram rolunu bu sənədlə insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır. 1998-ci il 18 iyun tarixdə isə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuşdur. Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində əldə etdiyi ən mühüm nailiyyətlərdən biri də BMT və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandum olmuşdur. Bu memoranduma əsasən, BMT insan hüquqlarını dəstəkləmək və müdafiə etmək sahəsində ümumi biliklərin və potensialın Avropa standartlarına uyğunlaşdırılması, prosedur və hesabatlar sisteminin təkmilləşdirilməsi, mülki cəmiyyətin inkişafı və digər məsələlər sahəsində Azərbaycan Respublikası hökuməti ilə birgə tədbirlər həyata keçirmişdir.

Ümummilli lider Heydər Əliyevin ölkədə demokratiyanın inkişafı baxımından ən böyük xidmətlərindən biri də məhkəmə orqanlarının müstəqilliyinin təmin edilməsi, hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsidir. Böyük öndərin 1998-ci il 1 dekabr tarixdə imzaladığı "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsi barədə fərmanı respublikamızda yeni məhkəmə sisteminin formalaşmasına mühüm töhfə olmuşdur. Qanun ədalət mühakiməsinin həyata keçirilməsi prinsiplərinin müasirləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması baxımından olduqca mühüm əhəmiyyət daşımışdır. Məhkəmə fəaliyyətinin hüquqi əsaslarını

və ədalət mühakiməsinin daha səmərəli təşkili qaydalarını özündə ehtiva edən qanunda hakim vəzifəsinə seçkilərlə bağlı bir sıra zəruri tələblər də əksini tapmışdır. "Məhkəmələr və hakimlər haqqında" qanunun qəbulu məhkəmə orqanlarının sovet dövründən miras qalmış köhnə funksiyalardan azad olmasına, onların fəaliyyətinin müasir dövrün tələblərinə uyğunlaşdırılmasına, bir sözlə, ədalət məhkəmələrinin cəmiyyətdəki nüfuzunun möhkəmləndirilməsinə xidmət etmişdir.

28 dekabr 2001-ci il tarixdə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun qəbulu da respublikamızda insan hüquq və azadlıqlarının etibarlı təminatına xidmət etmişdir. 2 iyul 2002-ci il tarixdə Azərbaycan Respublikasının ilk Ombudsmanı seçilmiş, 28 oktyabr 2002-ci il tarixdən insan hüquqları və azadlıqlarının bərpası istiqamətində fəaliyyətə başlamışdır. Ulu öndər Heydər Əliyev demokratik dövlət quruculuğuna xidmət edən mütərəqqi hüquqi-siyasi, hüquqi islahatları davam etdirməklə yanaşı, həm də milli maraqlara xidmət edən çevik xarici siyasət xətti yürütmüş, ölkənin milli maraq və mənafelərini daim uca tutmuşdur. Son 15 ildə Azərbaycanda milli mənafelərə əsaslanmaqla həyata keçirilmiş xarici siyasət kursunun prioritet istiqaməti müstəqil və güclü dövlət modelinin praktik surətdə reallaşdırılmasına yönəlmiş, respublikamız beynəlxalq normalara istinad edərək sivil dünyanın hüquqi-siyasi atmosferini müəyyənləşdirən aparıcı dövlətlər və beynəlxalq təşkilatlarla münasibətlərini yüksək dinamizmlə inkişaf etdirmək xəttinə üstünlük vermişdir. Ulu öndərimiz Heydər Əliyevin möhkəm təməllər üzərində əsasını qoyduğu balanslaşdırılmış xarici siyasət uzaq hədəflərə hesablanmış strateji fəaliyyət konsepsiyası olmaqla, müstəqil Azərbaycanın beynəlxalq arenada nüfuz və mövqelərinin güclənməsinə, ümummilli problemlərinin həllinə yönəlmişdir.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan sivil dünyanın siyasi xəritəsində geostrateji mövqeyini möhkəmləndirmiş, qlobal məkanda cərəyan edən proseslərin istiqamətverici subyektinə çevrilməyə nail olmuşdur. Yeni dünya düzənində aparıcı güc mərkəzləri arasında gedən mübarizənin mahiyyətinə uyğun xarici siyasət yeridən müstəqil Azərbaycan Cənubi Qafqazın lokomotiv dövlətinə çevrilmiş, ölkəmizin regionda gerçəkləşdirilən bütün transmilli layihələrdə iştirakı təmin olunmuşdur. Böyük öndərin rəhbərliyi altında Azərbaycanın xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri ümummilli mənafelərə, habelə siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etmişdir. Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda rezonans doğuran qətiyyətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan böyük diplomatik məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bugünü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur. Məhz bütün bunların nəticəsidir ki, Azərbaycan cəmiyyəti Heydər Əliyevin əsasını qoyduğu unikal liderlik institutunu və dövlətçilik sistemini ölkənin beynəlxalq təhlükəsizliyinin, iqtisadi maraqlarının, siyasi sistemin sabitliyinin təmin edilməsinə yönələn fəlsəfi dünyagörüşü kimi qəbul edir. Qlobal miqyasda aparıcı dövlətlər, o cümlədən, Qərbin demokratik dairələri Azərbaycanın perspektivini bu kursdan kənarda təsəvvür etmirlər. Heydər Əliyevin xarici siyasət doktrinası bu fəlsəfi dünyagörüşün mahiyyəti barədə real təsəvvürlərin ortaya çıxmasını şərtləndirir.

Ümummilli lider Heydər Əliyev Azərbaycanın demokratik tərəqqisi üçün zəruri inkişaf kursunu irəli sürərək bu kursun alternativsizliyini real addımlar, əməli nəticələrlə sübuta yetirməklə bərabər, banisi olduğu dövlətçilik irsinin əbədiliyini təmin edəcək qüdrətli varis və lider yetişdirmişdir. Ulu öndərin müəyyən etdiyi strategiyanı uğurla həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə, onun xalqına, dövlətinə necə bağlı lider olduğu bir daha aydın görünür. Reallığı düzgün qiymətləndirmək bacarığı, praqmatikliyi, işgüzarlığı, sadəliyi, səmimiliyi, təvazökarlığı, alicənablığı, insanlara təmənnasız münasibəti, xalqına, millətinə, Vətəninə sevgisi, nəcibliyi, ziyalılığı, qətiyyətliliyi, məqsədə doğru inamla irəliləməsi cənab İlham Əliyevə xalqın rəğbət hissini daha da artıran ən mühüm mənəvi keyfiyyətlərdir. Moskva Beynəlxalq Münasibətlər İnstitutu kimi bütün dünyada məşhur ali təhsil müəssisəsində diplomatiya elminin incəliklərinə dərindən yiyələnmiş, bu sahədəki nəzəri biliklərini Heydər Əliyevin siyasət və idarəçilik məktəbində qazandığı təcrübi vərdişlərlə ümumiləşdirərək təcrübəli, peşəkar dövlət adamı kimi formalaşmış cənab İlham Əliyevin yüksək intellekti, istedadı, şəxsiyyəti, dövlətçilik məharəti ümumi vəhdət təşkil edir. İntellektlə istedadın, ənənə ilə novatorluğun, keçmişlə gələcəyin üzvi vəhdətinə, yaradıcı sintezinə nail olmaq qabiliyyəti, Azərbaycanın dünəni, bugünü və sabahına sonsuz, sarsılmaz sədaqət bunlar İlham Əliyev şəxsiyyətini hər kəsə sevdirən cəhətlərdir. Mövcud reallıqlar Azərbaycanın müasir dövlətçilik tarixində İlham Əliyev faktorunun prioritet, həlledici mahiyyətini bir daha ortaya qoyur. Bu səbəbdən də, İlham Əliyevin pozitiv siyasi obrazının mahiyyətini ictimai rəyin adekvat münasibətində axtarmaq lazımdır. Liderlik xüsusiyyətlərinin əksəriyyət tərəfindən qəbul edilmək, geniş siyasi spektrin inamını qazanmaq və elektoral dəstəyə malik olmaq kimi politoloji bir mənanı ehtiva etdiyini nəzərə alsaq, bu termini bütün kateqoriyalar üzrə İlham Əliyevə şamil

etmək olar. Cənab İlham Əliyev həm də müasir dünyanın qloballaşma və yeni geosiyasi reallıqlardan irəli gələn siyasi mənzərəsinin əsas cizgilərinə cavab verən siyasi liderdir.

Prezident İlham Əliyevin ictimai rəydəki statusunun möhkəmlənməsinə təsir göstərən ən başlıca məqamlardan biri də dövlət rəhbərimizin kifayət qədər təkmil siyasi təlimə ulu öndər Heydər Əliyevin milli dövlətçilik fəlsəfəsinə istinad etməsidir. Bu amilin Azərbaycan dövlətçiliyinin tarixi taleyindəki böyük rolu barədə geniş söhbət açmağa lüzum yoxdur. Həmin təlim Azərbaycanın müstəqilliyinə, dövlət müstəqilliyimizin əbədi, dönməz xarakter daşımasına təminat verir. Eyni zamanda, bu təlim dövlətin idarə edilməsi missiyasını üzərinə götürmüş şəxsdən daha məsuliyyətli və qətiyyətli olmağı tələb edir.

Azərbaycan Prezidenti xarizmatik liderdir və onun mütərəqqi siyasi keyfiyyətləri vizual görüşündə tam nəzərə çarpır. Cənab İlham Əliyevin kütlələrlə ən qısa ünsiyyəti belə onun əksər siyasi keyfiyyətlərini parlaqlığı ilə əks etdirir. Danışıq tempi, nitqindəki rəvanlıq, məntiqi ardıcıllıq, soyuqqanlı reaksiya, təmkin, psixoloji sabitlik Azərbaycan Prezidentinin siyasi portretinin aydın cizgiləridir. Cənab İlham Əliyev dövlət adamı olaraq nəzəriyyəçidən daha çox praktikdir. Dövlət başçısı öz nitqlərini hər hansı nəzəriyyələr üzərində yox, artıq reallıqda öz təsdiqini tapmış müddəalar üzərində qurur. Auditoriyanın xarakterindən asılı olmayaraq Azərbaycan Prezidenti insanlarla bütün ünsiyyət anlarında müstəqil dövlətimizin qarşısında dayanan yeni planlar, perspektivlər haqqında fikir və düşüncələrini aydın şəkildə çatdırır. Dövlət rəhbərinin hər bir nitqi onun cəmiyyət həyatının bütün əhəmiyyətli sahələri üzrə yüksək bilik səviyyəsinə malik olduğunu göstərir. Cənab İlham Əliyev bu biliyi heç də sırf nəzəri materiallar əsasında toplamamış, bu biliyi ona həyat təcrübəsi qazandırmışdır. Bütün məsələlərə ölçülüb-biçilmiş yanaşma tərzi Azərbaycan Prezidentinin çıxışlarmı nəzəri və təcrübi hazırlıq üzərində kökləndiyini göstərir.

Dövlət başçısı İlham Əliyev bu gün müstəqil Azərbaycan dövlətinin qarantı missiyasını daşıyır və bu göstərici Azərbaycanın qısa müddət ərzində iqtisadi inkişaf sürətinə görə bütün dünyada liderə çevrilməsi faktıdır. Akademik Ramiz Mehdiyev "Azərbaycan: qloballaşma dövrünün tələbləri" əsərində Prezident İlham Əliyevin liderlik keyfiyyətlərini daha dolğun və obyektiv təsvirini yaratmışdır: "Faktlardan qaçmaq olmaz və onlar sübut edir ki, İlham Əliyev yeni dövrün siyasətçisidir və özünün də dəfələrlə vurğuladığı kimi, hər bir azərbaycanlının Prezidenti olmaq, tarixin hələ tezliklə başa çatmayacaq mürəkkəb dövründə ölkəyə rəhbərlik etmək üçün bütün zəruri liderlik keyfiyyətlərinə malikdir. İlham Əliyevin dövlət və onun inkişafı barədə baxışları məlumdur. Onun başlıca arzu və istəkləri Azərbaycan dövlətini modernləşdirmək və ölkəni dünyamiqyaslı mühüm qərarlar qəbul edən sayseçmə ölkələr birliyinə daxil etməkdir. O, fəaliyyətində ardıcıl və praqmatik, rasional və səmimidir. Onu fərqləndirən cəhət budur ki, o, fəaliyyət dairəsi məhdud olan məmur deyil, geniş baxışlara malik siyasətçidir. Azərbaycana məhz belə siyasətçi amerikalıların işgüzarlığını, britaniyalıların ehtiyatlılığını, almanların dəqiqliyini, habelə məsuliyyətliliyini, azərbaycanlıların açıqlığı, səmimiliyi və tolerantlığım özündə birləşdirən siyasətçi lazımdır".

Son 15 ildə ölkəmizdə həyata keçirilən effektiv iqtisadi islahatlar kursunu uğurla davam etdirərək dövrün tələblərinə uyğun yeni çalarlarla zənginləşdirən dövlət başçısı cənab İlham Əliyev hələ son prezident seçkiləri ərəfəsində verdiyi bütün vədləri böyük səylə, ardıcıl və sistemli surətdə yerinə yetirmişdir. Azərbaycanın sosial-iqtisadi yüksəlişi bu gün, ilk növbədə, insanların gündəlik həyatında özünü qabarıq büruzə verir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasətin məqsədyönlülüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaradır. Cənab İlham Əliyev qısa dövr ərzində imzaladığı məqsədyönlü fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin etmiş, dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olmuşdur.

"Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin" (www.president.gov.az) deyən cənab İlham Əliyevin ulu öndərin dövlətçilik irsinə necə sadiq olduğunu bir daha nümayiş etdirir. Son 5 ilin yekunlarının təhlili deməyə əsas verir ki, dövlət başçısı irəli sürdüyü bu prinsipləri gerçəkliyə çevirmək üçün ardıcıl, məqsədyönlü və uğurlu fəaliyyət göstərmiş, bütün məsələlərdə məhz xalqın mənafeyini əsas götürmüşdür. Azərbaycan Prezidentinin fəaliyyətinin təhlili göstərir ki, ötən illərdə konturları hələ böyük strateq Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş bütün konsepsiyalar uğurla davam etdirilmiş, zəruri hallarda məhz onun təşəbbüsü ilə dövrün tələblərinə uyğun olaraq keyfiyyət dəyişikliklərini özündə əks etdirmişdir.

İqtisadi cəhətdən inkişaf etmiş dövlətlərin sınaqdan çıxmış təcrübəsi göstərir ki, siyasi hakimiyyətin müəyyən zaman intervalında əldə etdiyi uğur və nailiyyətləri şərtləndirən başlıca amil məhz sosial məsuliyyət prinsipidir. Cəmiyyət qarşısında götürdüyü öhdəliklərə sadiqlik nümayiş etdirən hakimiyyət komandası xalqa

layiqli xidmət məramını əsas tutmaqla, ölkənin bütün mövcud resurslarını qarşıya qoyduğu strateji məqsədlərin gerçəkləşdirilməsi naminə səfərbər edir, siyasətində hər bir fərdin maraq və mənafeyini nəzərə almağa çalışır. Fəaliyyətini hər zaman ictimai inam və etimadı doğrultmaq məramı üzərində quran, hakimiyyətin mütəmadi olaraq gördüyü işlərlə bağlı xalqa hesabat verməsini idarəçilikdə mütərəqqi ənənə kimi formalaşdıran Azərbaycan Prezidenti İlham Əliyev də məhz fenomenal liderlik keyfiyyətləri sayəsində respublikamızı qısa müddətdə bütün sahələrdə sürətli inkişaf yoluna çıxarmışdır. Bölgələrin tarazlı və davamlı inkişafının təmin olunması, yeni iş yerlərinin açılması, infrastrukturun yeniləşdirilməsi, mövcud problemlərin aradan qaldırılması məqsədilə imzaladığı dövlət proqramlarının, fərman və sərəncamların icrası vəziyyəti ilə yerindəcə tanış olmaq, sıravi vətəndaşlarla birbaşa ünsiyyət quraraq mövcud çətinliklər barədə informasiyaları ilkin mənbədən almaq üçün vaxtaşırı Azərbaycanın müxtəlif rayonlarına təşkil edilən səfərlər də cənab İlham Əliyevin birinci prezidentlik dövrünün əsas istiqamətlərindən biri kimi diqqəti çəkmişdir. Vətəndaşlarla birbaşa təmaslara üstünlük verən, özünəməxsus təmkin və sadəliklə onların problemlərini dinləyən və həlli üçün qəti tapşırıqlar verən dövlət başçısının bu addımları ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmiş, xalqın öz Prezidentinə olan inamım, etimadmı daha da artırmışdır.

Dövlət başçısı makroiqtisadi inkişafı təmin etməklə yanaşı, yüksək siyasi qətiyyət nümayiş etdirərək Azərbaycan üçün bir sıra taleyüklü məsələlərin yoluna qoyulmasına da nail olmuşdur. Ümummilli liderin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara verilmiş, vaxtilə çoxlarına əfsanə kimi görünən bu layihələr reallığa çevrilərək Xəzərin karbohidrogen ehtiyatlarını dünya bazarlarına daşınmasını təmin etmişdir. Azərbaycanın bu gün Avropanın enerji təhlükəsizliyi sisteminin əsas təminatçısı qismində çıxış etməsi danılmaz faktdır. Etiraf etməliyik ki, bu problem bir çox hallarda ölkələrin müstəqilliyini təhdid edən, müstəqil dövlətlərin demokratik inkişafına maneə yaradan çox ciddi əngələ çevrilir. Azərbaycan isə nəinki belə problemlərdən uzaqdır, üstəlik respublikamız Avropa regionunun enerji təhlükəsizliyinin təminatında əsas söz sahiblərindən biri kimi çıxış edir.

Azərbaycan Prezidentinin xarici siyasət kursu müstəqil dövlətimizin milli mənafelərinə hörmətlə yanaşan bütün beynəlxalq təşkilatlar və xarici dövlətlərlə əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi müstəvisi üzərində qurulmuşdur. Avropa ailəsinə inteqrasiya edən Azərbaycanda cəmiyyəti bütün liberal dəyərləri mənimsəmiş, insan hüquq və azadlıqlarının təminatı, demokratikləşmə sahəsində mühüm uğurlara imza atmışdır. Bu illərdə Avropa Şurası qarşısında götürülən öhdəliklərin yerinə yetirilməsi prosesi başa çatmış, ölkəmiz Avropa Birliyinin "Yeni Qonşuluq Siyasəti" proqramına, habelə NATO-nun "Fərdi əməkdaşlıq üzrə fəaliyyət planı"na qoşulmuş və modern ordu quruculuğunu təşkilatın standartlarına uyğunlaşdırmaq istiqamətində mühüm addımlar atmışdır.

Dövlət başçısının 2008-ci il iyunun 26-da keçirilmiş möhtəşəm hərbi paradda bəyan etdiyi kimi, bu gün Azərbaycan Ordusu regionun ən güclü, təminatlı, modern ordusudur. Milli Ordunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən hərbi qulluqçuların sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi cənab İlham Əliyevin xüsusi diqqət mərkəzindədir. Ali Baş Komandan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin mümkün olmayacağı təqdirdə, xalqın öz torpaqlarını azad etmək üçün silaha sarılacağını gizlətmir və Silahlı Qüvvələrin buna tam qadir olduğunu bəyan edir. Milli Orduya dövlət büdcəsindən ayrılan vəsaitlərin həcmi ildən-ilə artırılır və bu da paralel olaraq maddi-texniki təminatın, döyüş əhval-ruhiyyəsinin, nizam-intizamın güclənməsinə səbəb olur. 2009-cu ildə ordu quruculuğuna dövlət büdcəsindən ayrılmış vəsaitlərin həcmi əhəmiyyətli dərəcədə artaraq 2 milyard 300 milyon dollara çatmışdır. Nəzərə alsaq ki, 5 il əvvəl Silahlı Qüvvələrimizin büdcəsi cəmi 150 milyon dollar təşkil edirdi, inkişafın miqyası barədə daha əyani təsəvvür yaranar.

Azərbaycan Prezidenti İlham Əliyevin 5 ilə yaxınlaşan prezidentlik fəaliyyətinə nəzər salarkən, onun Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın milli mənafelərinə və beynəlxalq hüquq normalarına uyğun həlli istiqamətindəki səylərini xüsusi vurğulamaq lazımdır. Dövlət başçısının xarici siyasət doktrinasında bu problemin həlli öncül yeri tutur və real siyasi fəaliyyətə əsaslanır. Cənab İlham Əliyev bütün xarici səfərlərdə, görüşlərdə bu problemi ön plana çəkir, ölkəmizin haqlı mövqeyini bir daha dünya ictimaiyyətinin nəzərinə çatdırır. Dövlət başçısı problemin Azərbaycanın ümdə maraqları qorunmaqla, beynəlxalq hüquq və normaları çərçivəsində sülh yolu ilə həlli üçün bütün mümkün imkanlardan istifadə ediləcəyini dəfələrdə bəyan etmişdir. Nəticədə, rəsmi Bakının münaqişə ilə bağlı mövqeyinin getdikcə güclənməsi müşahidə olunur və bunu dövlət başçısı cənab İlham Əliyev hökumətin 2008-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasında da razılıqla bildirmişdir. Ölkənin iqtisadi cəhətdən qüdrətlənməsi Azərbaycanın diplomatik sahədə əldə etdiyi nailiyyətlərdə özünü göstərir.

İqtisadi cəhətdən güclü olmayan bir dövlətin xarici siyasət, o cümlədən demokratikləşmə və insan hüquqlarının etibarlı təminatı sahəsində böyük uğurlar qazanması mümkün deyil. İnamla demək olar ki, ulu

öndər Heydər Əliyevin əsasım qoyduğu məhkəmə-hüquq islahatları da Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilir. Dövlət başçısı səlahiyyətlərinin icrasına başladığı ilk gündən demokratikləşməyə və insan hüquq və azadlıqlarının təminatına xidmət edən islahatların davam etdiriləcəyini vurğulamış, bu istiqamətdə ardıcıl və sistemli tədbirlər həyata keçirmişdir. Ötən müddətdə ölkəmizin məhkəmə-hüquq sistemində əsaslı islahatlar aparılmış, bu mühüm sahədə fəaliyyətin təkmilləşdirilməsi, ədliyyə orqanlarının inkişafı, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, müstəqil məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi üzrə genişmiqyaslı tədbirlər görülmüşdür.

Dövlət başçısının təşəbbüsü ilə 2004-cü ilin dekabrında "Məhkəmə-Hüquq Şurası haqqında", "Konstitusiya Məhkəməsi haqqında" yeni qanunlar qəbul olunmuş, "Məhkəmələr və hakimlər haqqında" qanuna bir sıra mütərəqqi dəyişikliklər edilmişdir. Məhkəmə-Hüquq Şurasının fəaliyyəti gücləndirilmiş, Hakimlərin Seçki Komitəsi tərəfindən vakant hakim vəzifələrinə namizədlərin seçilməsi prosesinə başlanılmışdır.

Azərbaycanın son illər dünya enerji satışı bazarında çəkisinin və rolunun xeyli dərəcədə artması Avropa dövlətlərinin respublikamızla bu sektorda sıx əməkdaşlıq etmək marağını daha da gücləndirmişdir. Respublikamızın Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığı hazırda istər fövqəlgüc dövlətləri, istərsə də aparıcı beynəlxalq təşkilatlar tərəfindən birmənalı etiraf olunur. Ulu öndər Heydər Əliyevin yeni neft strategiyasını inamla davam etdirən Prezident İlham Əliyevin diplomatik səyləri nəticəsində Azərbaycan bu gün regionda hansısa ölkədən enerji asılılığı olmayan, tələbatını daxili imkanlar hesabına ödəməyə qadir yeganə respublika kimi çıxış edir. Respublikamızda uğurla həyata keçirilən enerji siyasətinin məqsədi Azərbaycanın dünya bazarına çıxışını artırmaq, həmin bazarlar üçün alternativ mənbə yaratmaq, habelə dünya bazarına çıxışın şaxələndirilməsini təmin etməkdən ibarətdir və bu da beynəlxalq ictimaiyyətin maraqlarına tamamilə cavab verir. Cari ilin əvvəllərindən Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin işə düşməsi respublikamızın bütövlükdə Avropanı təbii qazla təminatına da geniş imkanlar açmışdır.

Bir müddət əvvəl İsveçrənin Davos şəhərində keçirilmiş Ümumdünya iqtisadi Forumunun gedişi bir daha təsdiqləmişdir ki, etibarlı enerji təhlükəsizliyinin təminatı məsələsi düşünülmüş strategiya əsasında genişmiqyaslı tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Bunun üçün ilk növbədə qabaqcıl texnologiya əsasında alternativ enerji daşıyıcıları şəbəkəsi yaradılmalı, zəruri infrastruktur formalaşdırılmalıdır. Xaricdən enerji asılılığının azaldılması baxımından boru kəmərlərinin geosiyasi nöqteyi-nəzərdən təhlükəsiz marşrutlarla çəkilişi təmin olunmalı, habelə alternativ enerji mənbələrinin işə salınması istiqamətində ciddi addımlar atılmalıdır. Bu baxımdan Xəzər hövzəsinin qaz ehtiyatlarının nəqlində əsas ağırlığı üzərinə götürəcək "Nabukko" layihəsinin əhəmiyyəti xüsusi vurğulanmalıdır.

Bu gün inamla demək olar ki, Azərbaycan Prezidenti İlham Əliyevin ölkənin demokratikləşdirilməsi sahəsində yeritdiyi ardıcıl siyasətə Heydər Əliyev Fondu da öz töhfəsini verir. 2004-cü ildən analoqu olmayan əlahiddə statuslu ictimai qurum kimi fəaliyyət göstərən Heydər Əliyev Fondu nəcib, xeyirxah və humanist insani dəyərlərə tapınaraq ümummilli liderin zəngin dövlətçilik irsinin bütün dünyada tanıdılması və təbliği istiqamətində ardıcıl iş aparır. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva çoxşaxəli fəaliyyətində ümummilli liderin zəngin dövlətçilik və idarəçilik fəlsəfəsinə əsaslanaraq milli-mənəvi və intellektual yüksəlişə xidmət edən ideallarin cəmiyyətdə daha da möhkəmlənməsinə çalışır. Azərbaycanın birinci xanımının istər milli-mənəvi irsin qorunması və dünya miqyasında təbliği, istər elm və təhsilin səviyyəsinin yüksəldilməsi, istərsə də səhiyyənin inkişafı, insanların fiziki-mənəvi sağlamlığının təminatı yönümündə həyata keçirdiyi strateji layihələr onun fəal vətəndaşlıq mövqeyində dayanmasının, yüksək mənəvi məsuliyyətinin təzahürüdür.

Cəmiyyətdə bir sıra mütərəqqi yeniliklərin təşəbbüskarı kimi çıxış etməklə yanaşı, Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə olaraq "birinci xanım" ənənəsini də öz fəaliyyəti ilə məhz Mehriban xanım Əliyeva formalaşdırmış, bu statusda böyük ictimai rəğbət və etimad qazanmışdır. Məhz Azərbaycanın birinci xanımının timsalında bu status humanist fəaliyyətə, qayğıkeşliyə, eləcə də hansısa problemlərlə qarşılaşan, hansısa məqamda hüquqları pozulan sıravi vətəndaşların ümid yerinə çevrilmişdir.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən çoxşaxəli layihələri birləşdirən bir ümumi ortaq xətt isə məhz milli genefondun qorunması, saf dəyər və duyğuların ictimai şüurda intişar tapmasıdır. Azərbaycanın birinci xanımı haqlı olaraq informasiya texnologiyalarının sürətlə inkişaf etdiyi müasir dövrdə insani və mənəvi-əxlaqi dəyərlərin yad təsirlərdən qorunmasına daha çox ehtiyac olduğunu bildirir. Bu baxımdan Fondun həyata keçirdiyi xoşməramlı tədbirlər sırasında elm və təhsilə qayğının xüsusi yer tutması da təsadüfi olmayıb, milli-mənəvi irsin qorunması məqsədinə xidmət edir.

Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti, eyni zamanda Azərbaycanın beynəlxalq aləmdə tanıdılması, mühüm beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrinin genişləndirilməsidir. Son illərdə məhz

Mehriban xanım Əliyevanın təşəbbüsü, YUNESKO-nun iştirakı ilə Bakıda təşkil olunan yüksək səviyyəli beynəlxalq tədbirlərdə dünyada sülh və sabitliyin möhkəmləndirilməsi, mədəniyyətlərarası dialoqun genişləndirilməsi, dini-irqi ayrı-seçkiliyin, savadsızlığın aradan qaldırılması kimi nəcib ideyalar üstünlük təşkil etmişdir.

Azərbaycanın son beş ildə qazandığı böyük nailiyyətlər cənab İlham Əliyev klassik siyasətdən XXI yüzilliyin modern siyasətinə uğurlu keçid formulunu ilk dəfə, özü də müvəffəqiyyətlə sınaqdan çıxaran siyasətçi obrazının daşıyıcısı olaraq siyasətdə, diplomatiyada eyni dərəcədə mühafizəkar, ənənəçi və yenilikçi, liberal olmaqla, mötədil dəyərləri sintez etməyi bacarır. Prezident İlham Əliyev iti zəkası, vaxtında qərar qəbul etmək bacarığı, fəhmi, hazırlıq səviyyəsi, analitik təhlil qabiliyyəti hesabına istər fərdi qaydada, istərsə də komanda halında uğurlu fəaliyyət göstərir. Bütün bunlar tam və qəti şəkildə deməyə əsas verir ki, İlham Əliyev fenomeni bu gün müstəqil Azərbaycanın siyasi simasını müəyyən edir və onun rəhbərliyi altında ulu öndər Heydər Əliyevin dövlətçilik irsinin davam etdirilməsi tarixi zərurət, başqa sözlə desək, sosial sifarişdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Əliyev İ. Azərbaycanın strategiyası // Dirçəliş-XXI əsr, 2004, № 82-83. s. 3-7
2. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Bakı: Azərbaycan, 1994, 174 s.
3. Hüseynova İ. Mehriban xanım Əliyevanın fəaliyyəti nəciblik və mərhəmət nümunəsidir // Dirçəliş-XXl əsr , 2005-2006, № 94-95. s. 39
4. Hüseynova İ. Liderlik nümunəsi // Dirçəliş-XXI əsr, 2009, № 130-131, s. 90-98
5. Hüseynova İ. Azərbaycan Qafqazda lider dövlətdir // Dirçəliş-XXl əsr, 2008, № 118-119, s. 344 - 354
6. Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı: XXI əsr Yeni Nəşrlər Evi, 2005, 433 s.
7. Mehdiyev R. Azərbaycanda siyasət: dünən, bu gün və sabah // Dirçəliş-XXI əsr, 2002, № 49, s. 68-85
8. Гусейнова И. Гейдар Алиев и национально-духовные ценности азербайджанского народа // Dirçəliş-XXI əsr, 2009, №128-129, с. 73-90

**«Dirçəliş XXI əsr».**–2009.-№133-134.–S.86-99

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ƏDLİYYƏSİ

**Faiq QURBANOV,**
Ədliyyə Nazirliyi İnsan hüquqları və
ictimaiyyətlə əlaqələr idarəsinin rəisi,
Baş ədliyyə müşaviri

Ümummilli liderimiz, milli dövlətçiliyimizin memarı və qurucusu Heydər Əliyevin həyatı, siyasi və idarəçilik fəaliyyəti tariximizdə müstəsna yer tutur. Xalqımız tarix boyu əxz etdiyi dövlətçilik ənənələrini, milli dəyərləri, nailiyyətləri, ali keyfiyyətləri məhz Heydər Əliyev epoxasında təkmilləşdirərək dayanıqlı müstəqil Azərbaycan dövlətini qurmuş, millətin özünü idarə etmək bacarığını yüksək səviyyədə nümayiş etdirmişdir.

Çoxəsrlik dövlətçilik ənənəsi olan Azərbaycan ədliyyəsinin xalqımızın müstəqillik uğrunda mübarizəsini, onun şanlı keçmişini əks etdirən zəngin tarixi vardır. Azərbaycan Respublikasının ədliyyə tarixinin əп şərəfli anları 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaranması ilə başlanmışdır. Şərqin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyətində ədliyyə fəaliyyətinə xüsusi əhəmiyyət verilərək məhz 1918-ci il may ayının 28-də - Azərbaycan Demokratik Respublikasının elan edildiyi gün Ədliyyə Nazirliyi də təsis edilmiş, noyabr ayının 22-də isə nazirliyin əsasnaməsi təsdiq edilmişdir. Bu dövrdə kadrların hazırlanması məqsədilə hüquq kursları təsis edilmiş, qısa müddət ərzində Azərbaycan məhkəmə palatası yaradılmış, yeni hüquq sisteminin təşkili ilə bağlı bir çox əhəmiyyətli qərarlar qəbul olunmuş, ölkənin ədliyyə sisteminin formalaşdırılması və inkişafı naminə xeyli iş görülmüşdür.

Lakin 1920-ci il sovet işğalından sonra Ədliyyə Nazirliyi dəfələrlə ləğv edilərək yenidən yaradılmış, Ədliyyə Komissarlığı ilə əvəz edilmiş, xeyli müddət prokurorluq, Ali Məhkəmə və digər orqanlar ədliyyə orqanlarının vəzifəsini yerinə yetirmişlər. Ədliyyə sisteminin stabil funksiya və struktura malik olmaması onun inkişafına ciddi əngəllər törətmişdir.

Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə yaradılması, ümumiyyətlə, nazirliyin dövlət strukturu kimi təşəkkül tapması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 1970-ci ildə Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə təsis edilərək, ədliyyə işinin təkmilləşdirilməsi, onun gələcək inkişafı üçün əlverişli şərait yaradılması ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərliyə gəldiyi dövrə təsadüf edir. Azərbaycanın keçmiş sovetlər birliyinə daxil olan məhz bu dövrdə islahatların aparılması böyük cəsarət və əzmkarlıq tələb edirdi. 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis edilmiş və Azərbaycan ədliyyə tarixində yeni mərhələ başlanmışdır. 1972-ci ildə Ədliyyə Nazirliyinin əsasnaməsi təsdiq edilmiş, ədliyyə sisteminin yeniləşən fəaliyyətini tənzimləyən mühüm normativ sənədlər qəbul edilmiş, ən əsası isə ədliyyə işinin gələcək inkişafı üçün hərtərəfli zəmin yaranmışdır.

Ədliyyə Nazirliyinin Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonrakı inkişafı da məhz görkəmli dövbt xadimi və ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır.

1991-1993 - cü illərdə Azərbaycan müstəqillik qazandıqdan sonra hakimiyyətdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi maneəyə çevrilməklə yanaşı, daxili böhranın, vətəndaş itaətsizliyinin, xaos və anarxiyanın yaranmasına rəvac vermiş, qanunçuluğun və hüquq qaydalarının təminatı, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun, ən nəhayət, ictimai asayişin qorunması sahəsində əsaslı problemlər yaratmışdır. Belə bir böhranlı və ağır şəraitdə Azərbaycanı sürətlə fəlakətə sürükləyən məkrli planların qarşısını almağa, düçar olduğu fəlakətlərdən qurtarmağa qadir yeganə şəxsiyyət məhz ulu öndərimiz Heydər Əliyev olmuşdur. Ümummilli liderimizin həyata keçirdiyi xilaskarlıq missiyası nəticəsində milli dövlətçiliyimizin itirilməsi təhlükəsi aradan qaldırılmış, cəbhədə atəşkəsə nail olunmuş, daxili sabitlik bərqərar edilərək, ölkəni bürümüş hərtərəfli tənəzzülün qarşısı alınmışdır. Azərbaycan xalqı 1993-cü ildə ümummilli lider Heydər Əliyevə etimad göstərərək onu özünün layiqli rəhbəri seçmiş, müdrik liderinin rəhbərliyi altında davamlı və dönməz inkişaf yoluna qədəm qoymuşdur.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ictimai münasibətlərin xarakterinin dəyişməsi, hüquqi dövlət quruculuğu həyatımızın bütün sahələrində olduğu kimi, hüquqi sahədə də demokratik islahatların həyata keçirilməsini zəruri etmişdir. Ümummilli liderimiz Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilmiş ilk milli Konstitusiyamızda məhkəmə hakimiyyətinin, xüsusilə hakimlərin müstəqilliyinin təminatı barədə müddəalar əks edilmiş, demokratik quruluşun və hüquqi dövlətin təməli qoyularaq hüquqi islahatların aparılması şərtlənmişdir. Konstitusiyada hakimiyyət bölgüsü prinsipi dəqiq əksini tapmış, zamanın tələbi ilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə fundamental hüquqi zəmin yaradılmışdır.

Uğurla həyata keçirilən məhkəmə-hüquq islahatı nəticəsində ölkəmizdə qısa müddət ərzində demokratik prinsiplərə və beynəlxalq tələblərə uyğun mütərəqqi qanun və məcəllələr qəbul edilmiş, əvvəlkindən köklü surətdə fərqlənən məhkəmə sistemi yaradılmışdır.

Demokratik prinsiplərin, humanist dəyərlərin və insan hüquqlarının ön plana çəkildiyi müasir zamanda hər bir ölkənin dövlət və ictimai həyatında ədliyyə orqanları mühüm yer tutur.

İslahatlar çərçivəsində ədliyyə işinin müasir tələblər səviyyəsinə qaldırılması üçün əsaslı tədbirlər görülmüş, Ədliyyə Nazirliyinin üzərinə yeni mühüm vəzifələr qoyulmuş, nazirlik dövlətin hüquq siyasətini həyata keçirən əsas orqanlardan birinə çevrilmişdir. Görülmüş tədbirlər nəticəsində Azərbaycan ədliyyəsi beynəlxalq norma və prinsiplərə uyğun olan inkişaf yoluna qədəm qoymuş, onun çoxşaxəli fəaliyyətinin tənzimlənməsi üçün bir çox normativ sənədlər qəbul edilmişdir. Qanunun aliliyinin təmin edilməsi məqsədilə 2000-ci ildə Azərbaycanda üçpilləli yeni məhkəmə sistemi yaradılaraq fəaliyyətə başlamış, ölkəmizdə ilk dəfə olaraq test üsulu ilə şəffaf prosedurlarla yeni hakim korpusu formalaşdırılaraq, onların yüksək statusu müəyyən olunmuşdur. Respublikada Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması, İnsan Hüquqları üzrə müvəkkil institutunun yaradılması demokratik inkişaf yolunda əldə olunan mühüm nailiyyətlərdəndir.

Ümummilli liderimiz Heydər Əliyev yenidən Azərbaycana hakimiyyətə qayıdandan sonra dövlətin cəza siyasətində də islahatlara başlanıldı və ilk olaraq cəzaçəkmə müəssisələri Ədliyyə Nazirliyinin tabeçiliyinə verildi. Ölkəmizdə insan hüquqları sahəsində atılan mühüm addımlardan biri də Şərqdə ilk dəfə olaraq ölüm cəzasının ləğv edilməsi oldu. 1993-cü ildən ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə icrasına moratorium qoyulmuş bu müstəsna cəza növü 1998-ci ildə ləğv olundu. Ümummilli liderimiz Heydər Əliyevin apardığı humanist siyasət nəticəsində 1995-ci ildən əvvəllər unudulmuş əfv və amnistiya təsisatları bərpa edildi. Ulu öndər 1995-2003 - cü illərdə 32 əfv fərmanı imzalamışdır.

Ölkəmizdə insan hüquqlarının daha etibarlı müdafiəsinə xidmət edən məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi üzrə məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Ulu öndər Heydər Əliyevin imzaladığı 1998-ci il 22 fevral tarixli "İnsan hüquq və azadlıqlarının müdafiəsinə dair" Fərmanı və "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq olunması barədə 1998-ci il 18 iyun tarixli Sərəncamı mühüm qanunvericilik və institusional islahatlara təkan vermiş, ölkəmizdə insan hüquqlarının təmini sahəsində effektiv müdafiə mexanizmlərinin formalaşdırılmasını şərtləndirmişdir.

Ədliyyə işçilərində mənəvi stimul yaradılması və tarixi irsin qorunması məqsədilə ümummilli lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi gün - 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü kimi müəyyən olunmuşdur.

Ulu öndər ədliyyə sistemində fəaliyyətin mövcud tələblər səviyyəsində qurulması üçün məqsədyönlü xidmətləri hazırda öz gözəl bəhrələrini verməkdədir. Ölkədə həyata keçirilən effektiv hüquqi islahatlar kursunu uğurla davam etdirərək dövrün tələblərinə uyğun yeni çalarlarla zənginləşdirən Prezidentimiz cənab İlham Əliyev qısa dövr ərzində imzaladığı məqsədyönlü fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin etmiş və həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olmuşdur.

Möhtərəm Prezidentimizin ədliyyə sisteminə göstərdiyi diqqət və qayğının əyani təzahürü olaraq ədliyyə fəaliyyətinin normativ-hüquqi əsasları təkmilləşdirilmiş, 2006-cı il aprel ayının 18-də ölkə Prezidenti tərəfindən nazirliyin yeni Əsasnaməsi təsdiq olunaraq ona hüquq mühafizə orqanı statusu verilmiş, həmin il may ayında isə "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanun qəbul edilmişdir. Dövlət başçısı tərəfindən "Ədliyyə orqanlarının inkişafı haqqında" 17 avqust 2006-cı ildə Fərman imzalanması və nazirliyin yeni strukturunun təsdiq edilməsi Azərbaycan ədliyyəsinin inkişafında yeni mərhələ olmuşdur.

Prezident İlham Əliyevin tapşırıqlarına əsasən məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə kompleks tədbirlər həyata keçirilmiş, məhkəmə hakimiyyətinin özünüidarə orqanı Məhkəmə Hüquq Şurası formalaşdırılmış, müstəqil qurum olan Hakimlərin Seçki Komitəsi yaradılmış, ilk dəfə olaraq hakimlərin fəaliyyətinin qiymətləndirilməsi qaydası müəyyən olunmuşdur.

"Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013 - cü illər üçün Dövlət Proqramı" milli ədliyyə sistemi ilə yanaşı, həm də məhkəmə orqanlarının müasirləşdirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində indiyədək həyata keçirilmiş məqsədyönlü və ardıcıl tədbirlər sisteminin uğurlu davamıdır. Dövlət proqramının imzalanması ədliyyə orqanlarının və məhkəmələrin dinamik inkişafının təmin edilməsi, yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, normativ-hüquqi və maddi-texniki təminatın yaxşılaşdırılması, kadr potensialının gücləndirilməsi məqsədi daşıyır.

Aparılan islahatlar göstərir ki, Azərbaycanda qanunun aliliyinin təminatı, ədliyyə orqanlarının dövlət idarəçilik mexanizmində nüfuzlu təsisat kimi təşəkkül tapması, o cümlədən, ədalət mühakiməsinin həyata

keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkili, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsi və digər konseptual məsələlərin həlli dövlət başçısının xüsusi diqqət mərkəzindədir. Dövlət başçısının inamla həyata keçirdiyi ədliyyə və məhkəmə islahatları ölkəmizdə qanunçuluğun, hüquq qaydalarının daha da möhkəmlənməsinə, habelə Azərbaycanın beynəlxalq arenadakı demokratik imicinin yüksəlməsinə xidmət edir.

May ayının 10-u xalqımızın xilaskar oğlu, ulu öndərimiz Heydər Əliyevin anadan olmasının 86-cı ildönümüdür. Qədirbilən Azərbaycan xalqı Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin doğum gününü onsuz qeyd edirlər. Respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları Fəxri Xiyabana gələrək, ulu öndər Heydər Əliyevin məzarı önünə əklillər, tər güllər qoyur, onun əziz xatirəsini dərin ehtiramla yad edirlər. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 86-cı ildönümü ədliyyə orqanlarında da geniş qeyd edilir, silsilə tədbirlər təşkil olunur, dəyirmi masalar və digər kütləvi tədbirlər keçirilir. Bu gün tam əsasla deyə bilərik ki, ulu öndərimizin ümummilli və ümumbəşəri ideyaları daim xalqımızın, millətimizin yoluna mayak kimi işıq saçacaq və müstəqil dövlətimizin daha da güclənməsində böyük rol oynayacaqdır.

**“Qanunçuluq”**.-2009.-№5.-S.40-42

# CƏMİYYƏTİ MİLLİ İDEYA ƏTRAFINDA BİRLƏŞDİRƏN LİDER

**İradə HÜSEYNOVA,**
*tarix elmləri doktoru, professor*

*Ötən əsrin axırlarından başlayaraq planetin bütün irili-xırdalı dövlətləri son nəticədə qloballaşmaya aparan nəhəng inteqrasiya magistralına qoşulmuşlar. Transmilli səciyyə daşıyan qloballaşma prosesləri kontekstində etnik milli mövcudluğun siyasi, iqtisadi, mədəni, mənəvi suverenliyi ilə bağlı milli konsepsiya və konseptual ideyalar isə heç də yekcins deyildir. Bu prosesi sosial-siyasi, mədəni-mənəvi, iqtisadi, elmi intellektual müstəvilərdə vahid qlobal harmoniya hesab edənlər də, kainatın daha çox vahid mərkəzdən idarə olunan bürokratik-texnoloji ərazi vahidinə çevrilmə prosesi olduğunu iddia edənlər də var.*

Ən müxtəlif mövqe və münasibətlərdən asılı olmayaraq qloballaşmaya doğru istiqamətlənmiş nəhəng inteqrasiya magistralı bütün planeti öz ardınca aparır. Mümkün olan ən optimal variant bu prosesə hər bir etnosun milli-mənəvi "Mən"ini dərk edərək qoşulmasından ibarət ola bilər. Bəlkə də bu zərurətin dərkindən doğan həqiqətin nəticəsidir ki, indi qloballaşma ayrı-ayrı xalqların etnik-mənəvi köklərinə yenidən dönüşü ilə xarakterizə olunur. Cəmiyyətin tarixi inkişaf qanunauyğunluğunun özünüqoruma instinktindən doğan müqavimət hissinin qabarıq şəkildə üzə çıxması isə milli lider amili ilə şərtlənir. Hər bir xalqın qərinələr boyu formalaşmış yüksək milli-mənəvi dəyərlərini, milli məfkurəsini pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya, ilk növbədə, fenomenal şəxsiyyətlərin üzərinə düşür. Azərbaycanda bu məsuliyyətli missi-yanı məhz ulu öndər Heydər Əliyev öz çiyinlərinə götürərək hakimiyyətdə olduğu bütün dövrlərdə milli-mənəvi dəyərlərin, milli məfkurənin böyük himayədarı qismində çıxış etmişdir.

## Dirçəliş və tərəqqi yolunun başlanğıcı

Tarixi təcrübə göstərir ki, hər bir xalqın hansısa əlverişli situasiyada milli-etnik soykökünə qayıdışı, əsrlər boyu əxz etdiyi milli-mənəvi dəyərlər və düşüncə sisteminə söykənərək özünəməxsusluğunu qorumaq şansı əldə etməsi, əsasən lider fenomeninin fövqəladə missiyası ilə şərtlənir. XX əsrdə Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyət olan Heydər Əliyev də Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında, azərbaycanlıların istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini ötən əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla əsrin sonlarına doğru müstəqil Azərbaycan dövləti kimi əzəmətli reallığa qovuşdurmuş, böyük fədakarlıqlar hesabına qurub-yaratdığı dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanın müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir. Əgər ulu öndər Heydər Əliyevin hələ respublikamıza birinci rəhbərliyi dövründə Azərbaycanın sosial-iqtisadi, mədəni yüksəlişi üçün həyata keçirilən tədbirlər, milli şüurun oyanışı istiqamətində istər açıq, istərsə də gizli şəraitdə görülən işlər olmasaydı, bu gün Azərbaycanın müstəqil dövlət kimi mövcudluğundan danışmaq çətin olardı.

1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev ilk gündən hər cür ideoloji-siyasi baryerlərə sinə gərərək Azərbaycan xalqının milli özünüdərki üçün bütün zəruri tədbirləri həyata keçirməyə başlamış, ictimai şüurdakı qorxunu, ehtiyatlılığı aradan qaldırmağı, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişlərə ruhlandırmağı bacarmışdır. Ulu öndər xalqda milli heysiyyatı gücləndirmək, onu öz şanlı keçmişinə, soykökünə qaytarmaq, habelə zəngin bədii irsini, mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, ana dilini inkişaf etdirmək üçün bir sıra tədbirlər həyata keçirmişdir. Azərbaycan KP MK-nın 1970-ci il 20 mart tarixli plenumunda çıxış edən Heydər Əliyev kütləvi informasiya vasitələrinin bu sahədəki fəaliyyətindən narazılığını ifadə edərək demişdir: *"Bəzən mətbuat, radio və televiziya işçiləri iqtisadiyyatın, mədəniyyətin və məişətin inkişafına, xalqın mənəvi həyatına aid mühüm məsələləri lazımi səviyyədə işıqlandırmağı bacarmırlar ".*

Ulu öndərin bu tarixi çıxışından sonra mətbuatda, televiziya və radio-da xalqın milli-mənəvi dəyərlərini, adət-ənənələrini, folklorunu, ədəbiyyatmı təbliğ edən materiallar çoxalmış, milli ədəbi irsi tərənnüm edən "Klassik irsimizdən", "Bulaq" kimi verilişlər ortaya çıxmış, ana dilinin təbliği istiqamətində real addımlar atılmışdır. Böyük strateq Heydər Əliyev milli ruhun yüksəlişinə xidmət edən bu və digər addımlarla sərt ideoloji istehkamların mövcud olduğu bir dövrdə Azərbaycanın müstəqilliyi üçün iqtisadi-siyasi zəmin formalaşdırmağa çalışmışdır. Bu günün zirvəsindən baxdıqda aşkar görünür ki, ulu öndər heç bir riskdən çəkinməyərək əzmkar

fəaliyyəti ilə xalqda tarixi keçmişi, milli kimliyi, dili, mədəniyyəti, milli adət-ənənələri və düşüncə sistemi barədə dolğun təsəvvürlər formalaşdıra bilmişdir. Həmin illərdə, eyni zamanda xalqın qərinələr boyu yaşatdığı mənəvi dəyərlərə nihilist baxış tədricən aradan götürülməyə başlamış, klassik ənənə ilə müasir ədəbi irs arasında yaranan ünsiyyət milli düşüncənin düzgün məcrada inkişafına səbəb olmuşdur.

Böyük strateq Heydər Əliyevin bütün fəlsəfi konstruksiyası məhz xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanırdı. Qalan hər şey, o cümlədən də iqtisadi inkişafın sürətli strategiyasının həyata keçirilməsi milli şüurun yüksəlməsinə təkan verməli, milli dirçəlişin əsas təməlinə çevrilməli idi. Ümummilli lider hələ ötən əsrin 70-ci illərində Azərbaycan xalqının görkəmli şəxsiyyətlərinin klassik yazıçı və şairlərinin xatirəsini əbədiləşdirməklə, onların əsərlərinin nəşrini təmin etməklə, bir sözlə, milli ədəbi düşüncənin inkişafına təkan verməklə, azərbaycanlıların necə böyük tarixə, şanlı soykökünə malik olduğunu nümayiş etdirmişdir. Heydər Əliyev kifayət qədər mürəkkəb bir dövrdə azərbaycançılıq məfkurəsinin rejimin ideoloji repressiya maşını ilə boğulmasına nəinki imkan vermiş, əksinə, milli düşüncə sahibi olan ziyalıları qorumuş, nəticədə, respublikada dissident yazarlar olmamışdır.

70-ci illərdə bir sıra Azərbaycan ziyalılarının imperiyanın təqiblərindən qurtulması, milli dövlətçilik hissinin güclənməsinə xidmət edən əsərlər yazıb-yaratması da Heydər Əliyevin xalqına qəlbən bağlı şəxsiyyət olduğunu əyani surətdə təcəssüm etdirir. Milli təfəkkür sahibi olduqlarına görə təqib edilən Azərbaycan yazıçı və şairlərini - Bəxtiyar Vahabzadəni, Xəlil Rza Ulutürkü, Əkrəm Əylislini, həmçinin məşhur tarixçi alim Ziya Bünyadovu və digər ziyalıları çətin məqamlarda müdafiə edən Heydər Əliyevin qanı canı, bütöv ruhu ilə milli kökə bağlı şəxsiyyət olduğu qabarıq görünür. Həmin dövrdə bədnam qonşularımız görkəmli tarixçi alim Ziya Bünyadovun "Atabəylər dövləti" kitabını dövlət mükafatına layiq görən Heydər Əliyevi millətçilikdə, şovinizmdə ittiham edirdilər. Lakin ulu öndər bu cəfəng iddialara məhəl qoymayaraq prinsipial və qətiyyətli addımlarını davam etdirirdi. Xatırlatmaq lazımdır ki, "Gülüstan" poemasını yazdığına görə DTK-nın təqiblərinə məruz qalmış tanınmış şair Bəxtiyar Vahabzadə də məhz Heydər Əliyevin qətiyyəti, prinsipiallığı sayəsində həbs olunmaqdan qurtulmuşdur.

Ümumiyyətlə, həmin illərdə Azərbaycan tarixçiləri şanlı keçmişimizin mümkün qədər obyektiv tədqiqi və qələmə alınması istiqamətində ilk addımlarını atmağa başlamışlar. Azərbaycan yazıçılarının 1976-cı ilin may ayında keçirilmiş qurultayında iştirak etmiş Heydər Əliyev geniş nitq söyləyərək xalqımızın ədəbiyyatının, onun inkişaf istiqamətlərinin, problemlərinin həlli yollarının dərin bilicisi olduğunu göstərmişdir. Böyük rəhbər xalqının qədim tarixi, soykökü ilə bağlı olan yazılı abidələrin dərindən öyrənilməsini tövsiyə etmiş, azərbaycanlıların dünya ədəbiyyatı ilə yaxından tanış olmaları üçün tərcümə işinin qaydaya salınmasının vacibliyini bildirmişdir: *"Azərbaycan ədəbiyyatı çoxəsrlik tarixi "Kitabı-dədə Qorqud" kimi ədəbi abidələrlə, Nizaminin nəhəng yaradıcılığı ilə, Xaqaninin və Nəsiminin, Füzulinin və Vaqifin, söz sənəti bahadırlarının dahiyanə əsərləri ilə, aşıq poeziyasının həmişə canlı nümunələri ilə zəngindir".*

Azərbaycan xalqının türk mənşəyi daha çox qədim yazılı abidə olan "Kitabı-dədə Qorqud"da əksini tapdığından, sovet ideologiyası 20-50-ci illərdə dastanın öyrənilməsini qadağan etmiş, uzun illər bu abidənin unutdurulmasına çalışmışdı. Ulu öndər bu qadağanı da aradan götürərək dastanın araşdırılması və tədqiqinə normal şərait yaratmışdır. "Kitabı-dədə Qorqud"la bağlı tarixi və ədəbi araşdırmaların sayı çoxalmış, bu mövzuda bədii film çəkilmişdir.

Ümumilikdə, xalqın milli düşüncə sisteminin bədii-poetik modeli olan Azərbaycan folklorunun inkişafı istiqamətində həyata keçirdiyi addımlar da ulu öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərə həssas münasibətindən irəli gəlməklə ictimai şüurun oyanmasına xidmət etmişdir. Heydər Əliyev xalqın düşüncələrini, azadlıq ideyalarını özündə yaşadan aşıq musiqisinin dirçəldilməsinə o illərdə xüsusi diqqət yetirmişdir. 1972-ci ildə Azərbaycan aşıq sənətinin görkəmli nümayəndələrindən olan Aşıq Ələsgərin 150 illik yubileyi həm aşığın doğulduğu doğma məkanı Göyçə mahalında, həm Bakıda, həm də Moskvada ən yüksək səviyyədə keçirilmişdir. Belə bir yubileyin keçirilməsində məqsəd el sənətkarını xalqa qaytarmaqla yanaşı, həm də tarixən Azərbaycanın real sərhədlərinin necə olduğu, ulu ata-babalarımızın bu yerlərdə əzəldən yaşadıqları fikrini yeni nəslə çatdırmaq idi.

## Milli özünüdərkə aparan yol

Ulu öndər Heydər Əliyev kosmopolit ideyaların zehinlərə zorla yeridildiyi bir dövrdə milli məfkurənin qorunub saxlanılması, habelə azərbaycançılığın ən mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi sahəsində də bir sıra mühüm addımlar həyata keçirmişdir. Heydər Əliyev üçün ana dili azərbaycançılığın başlanğıc məqamı, təməl prinsipi olmuşdur. Müdrik rəhbər yaxşı başa düşürdü ki, xalqa milli-mənəvi dəyərləri aşılamaq üçün ona ilk növbədə öz dilini qaytarmaq və sevdirmək lazımdır.

Rus dilinin dövlət dili olmasına rəğmən, ulu öndər həmin dövrdə bütün rəsmi nitqlərini Azərbaycan dilində edir, bunu bütün rəhbər vəzifəlilərdən də qətiyyətlə istəyirdi. Xatirələrdə qeyd olunur ki, ötən əsrin 70-ci illərinin ortalarında şairlərdən biri Heydər Əliyevə müraciətlə *"Yoldaş Əliyev, Siz Azərbaycan dilində çox gözəl danışırsınız " deyəndə, dahi rəhbər ona belə cavab vermişdi:* ***"Sən niyə mənim rusca gözəl danışmağıma deyil, Azərbaycan dilində danışmağıma təəccüb edirsən? Bu dil mənim ana dilimdir, mən bu dili bilməliyəm. Eləcə də hamımız!"***

Hələ 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiya layihəsi qəbul edilərkən, ulu öndərin Azərbaycan dilinin bu ali sənəddə ana dili kimi təsbitlənməsi və qorunub saxlanılması sahəsində nümayiş etdirdiyi qətiyyəti də bu məqamda xüsusi xatırlatmaq lazımdır. Bununla bağlı Kreml emissarlarının dəfələrlə Bakıya səfər edərək Heydər Əliyevi fikrindən daşındırmağa səy göstərdiyini, lakin buna nail olmadığını da mühüm fakt kimi vurğulamaq lazımdır. Eyni zamanda, ümummilli lider Heydər Əliyevin 70-ci illərdə nəşr olunmuş 3 cildlik "Müasir Azərbaycan dili" dərsliyinə dövlət mükafatı verməsi də xalqın milli şüurunun formalaşmasına mühüm töhfə olmuşdur.

Faktlar göstərir ki, əgər sovet hakimiyyətinin ilk illərindən etibarən Azərbaycanda rus dilində təhsil alanların sayı dinamik surətdə artırdısa, bu zərərli tendensiyaya məhz ötən əsrin 70-ci illərinin əvvəllərindən etibarən son qoyulmuşdur. Bu dinamika Azərbaycan dilində təhsil alanların say artımı hesabına kəskin şəkildə azalmış, ana dilində elmi nəşrlərin çapı artmış, elmi tədqiqatların və araşdırmaların məhz bu dildə aparılması dəstəklənmişdir. *"Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı biri-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir"* - deyə Heydər Əliyev çox sonralar Azərbaycan dilinin inkişafı üçün gördüyü tədbirləri belə izah edirdi:

70-ci illərdə Bakıda türkçülüyü tədqiq edən sanballı "Türkologiya" jurnalının nəşrə başlaması da böyük əzmin, fədakarlığın, türk dönməzliyinin nəticəsi olmuşdur. "Türkologiya" jurnalının nəşrinə Kreml bir neçə dəfə etiraz etsə də, imperiya səlahiyyətliləri Heydər Əliyevin fədakarlığı qarşısında geri çəkilərək türk dünyasının birliyinə xidmət edən bu nəşrin dayandırılmasına müyəssər ola bilməmişdilər. 1926-cı ildə keçirilən Birinci Beynəlxalq Türkoloji Qurultaydan xeyli sonra belə bir jurnalın nəşrə başlaması öləziyən türkçülüyə yeni nəfəsin, təkanın verilməsi məqsədi daşımışdır. Türkoloji Qurultayın bütün nümayəndələrinin 37-ci ilin repressiya maşınında məhv edildiyini, volyuntarizm dövründə Bəkir Çobanzadə, Hənəfi Zeynallı, Ruhulla Axundov kimi millətpərəst insanların bəraət aldığım, ancaq yenə də mərkəzin Azərbaycana milli məsələlərdə aman vermədiyini gözəl bilən Heydər Əliyev SSRİ rəhbərliyindəki şəxsi nüfuzundan istifadə edərək, milli oyanışın qığılcımlarını ədəbi nümunələrdə, tarixi salnamələrdə yaşatmışdır.

Ulu öndərin türk kimliyinə bu dərəcədə bağlılığı təsadüfi olmayıb təbii başlanğıca istinad etmiş, Heydər Əliyevin dünya ilə ilk tanışlığı türk düşüncə tərzinin hələ üstün mövqeyə malik olduğu, "türk" sözünün hələ tam yasaq edilmədiyi ötən əsrin 30-cu illərinin əvvəllərindən başlanmışdır. O zaman türkçülük ideyaları, əsasən, yeganə müstəqil türk dövləti olan Türkiyəyə, bu coğrafiyada yaradılan mədəniyyət nümunələrinə böyük maraq üzərində müəyyənləşirdi. Ulu öndərin o dövr haqqında xatirələrində oxuyuruq: *"Çocuq ikən, gənc yaşlarımda Türkiyəyə böyük hörmətim, məhəbbətim var idi. İndi ola bilər ki, elə böyük sirr deyil açım, o vaxtlar mən türk dili lüğətini, türk dili dərsliyini götürmüşdüm, türk dilini öyrənirdim. Bunu da açıq deyə bilərəm ki. müəllimim də var idi, bir müddət iki-üç il mənə türk dili öyrətdi. Türkiyənin tarixini öyrənirdim, şairlərini öyrənirdim. Gənc ikən indi mənim yaşımda olan adamlar ola bilər ki, bunu xatırlasın, məsələn, Rəşad Nuri Güntəkinin "Çalıquşu" romanı bizim hamımızı heyran edən bir əsər idi... Məncə "Çalıquşu"nu 13-14 yaşımda oxumuşdum. O məni heyran etmişdi".*

Azərbaycan xalqının mənəvi həyatında ən əlamətdar hadisələrdən sayılan on cildlik Azərbaycan Sovet Ensiklopediyasının ərsəyə gəlməsi də bilavasitə ümummilli liderin adı ilə bağlıdır. O zaman ölkədə milli oyanışın əsas mərkəzlərindən biri də məhz böyük mütəfəkkir Rəsul Rzanın başçılıq etdiyi Azərbaycan Ensiklopediyası olmuşdur. Ensiklopediyanın Baş Redaksiyası, redaksiya ətrafında toplanmış alimlərin böyük əksəriyyəti çox cəsarətli çıxışlar edirdilər. Xalqın təşəkkülündə türk etnoslarının həlledici rol oynaması, Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı, Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin tariximizdə mütərəqqi rol oynaması, 1920-ci ilin aprel işğalı kimi bir çox məsələləri o zaman məhz ensiklopediyaçılar qaldırırdılar. O dövrdə sapı özümüzdən olan baltalar bütün bu məsələləri Moskvaya çatdırırdılar. Azərbaycan ziyalılarına "millətçi", "burjua məfkurəçiləri", "sovet hökumətinin və Rusiyanın düşmənləri" damğasını vurmaqdan ötrü 1918-ci ilin martında Azərbaycan xalqına qarşı dəhşətli qırğınlar törətmiş Stepan Şaumyanın oğlu L.S.Şaumyanı Bakıya gətirdilər. O zaman "Böyük Sovet Ensiklopediyası" baş redaktorunun birinci müavini,

həm də sovet ideologiyasının başında dayananlardan olan Şaumyan əlinə düşmüş fürsətdən yararlanaraq Azərbaycan ziyalılarını məhv etməkdən ötrü çox çalışsa da, Heydər Əliyevin prinsipiallığı sayəsində mənfur məqsədinə çata bilməmişdi. Məhz Heydər Əliyevin müdrikliyi və cəsarəti sayəsində o zaman həm ensiklopediyaçılar, həm də ziyalıların böyük bir dəstəsi nəinki KQB-nin təqiblərindən kənarda qalmış, hətta partiya cəzasından da yaxa qurtara bilmişdilər.

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqında milli məfkurənin güclənməsi, milli dövlətçilik şüurunun formalaşması üçün hər bir vətəndaşın yüksək təhsil almasını, elmi yenilikləri əxz etməsini son dərəcə vacib sayaraq bu sahədə də praktik addımlar atmışdır. Ulu öndərin rəhbərliyi altında respublikada milli maarifçilik hərəkatına start verilmiş, təhsilin milliləşdirilməsi, ictimai elmlərin milli xarakterinin qorunması üçün ardıcıl tədbirlər həyata keçirilmişdir. Böyük strateqin ötən əsrin 70-80-ci illərində minlərlə gəncin respublikamızın hüdudlarından kənarda yüksək təhsil almasına, ixtisaslı kadr kimi yetişməsinə hər cür kömək göstərməsi də onun xeyirxahlığının və vətənpərvərliyinin əyani təcəssümüdür. Ümummilli lider çox sonralar 1998-ci ilin 31 avqustunda 1970-1987-ci illərdə Azərbaycandan kənarda təhsil almış mütəxəssislərin ümumrespublika toplantısındakı nitqində həmin dövrü xarakterizə edən bir çox məqamlara toxunaraq demişdi: *"Mən 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçiləndən sonra dərhal, birinci növbədə təhsil məsələləri ilə məşğul olmağa başladım. Bilirsiniz ki, mən o vaxta qədər də dövlət işində işləmişdim. Azərbaycanda təhsilin, xüsusilə ali təhsilin vəziyyəti məni daim maraqlandırmışdı və mən bu barədə xeyli məlumatlara malik idim... Araşdırmalar apararkən mənə aydın oldu ki, Azərbaycandan kənarda respublikamızın özündə hazırlana bilməyən ixtisaslar üzrə ali təhsil almaq üçün respublikaya 50 nəfərlik limit verilibdir... Mən dərhal maraqlandım ki, bəs siz kimləri seçmisiniz, kimləri oxumağa göndərirsiniz? Siyahını aldım, çox təəssüfləndim. Onların əksəriyyəti azərbaycanlı deyildi. Sonrakı illərdə də bu məsələ bir az çətin idi. Bilirsiniz ki, Azərbaycanda bir çox millətlərin nümayəndələri vardır. O vaxt mən iki-üç ildən sonra hər il respublikadan kənarda oxumağa göndərilənlərin 97-98 faizinin azərbaycanlılardan ibarət olmasına nail oldum "*

.

## Azərbaycançılıq məfkurəsini milli ideologiyaya çevirən rəhbər

Tarix sübut edir ki, hər bir xalqın vahid məqsədlər uğrunda toparlanması üçün zəruri olan milli ideologiya da böyük siyasi liderlərin dövlətçilik konsepsiyasında real əsaslarını tapır. Şübhəsiz, milli ideologiya milli düşüncə sisteminin əsas potensiyasının real siyasi məqsədlər naminə səfərbər edilməsidir. Milli ideologiyanın tələbləri sırasında dövlətçiliyin, milli mənafenin müdafiə edilməsi, milliyyətindən asılı olmayaraq hər bir vətəndaşın haqlarının ümumbəşəri tələblər səviyyəsində qorunması, milli azlıqların və etnik qrupların dilinin, mədəniyyətinin, adət-ənənələrinin inkişafına şərait yaradılması, dövlət idarəedici orqanlarında onların düzgün təmsil olunması və s. amillər mühüm yer tutur. Mövcudluq tarixində böyük liderlər, rəhbərlər yetişdirə bilməyən xalqların milli ideologiyasından da danışmaq mümkün deyildir.

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə də tarixi ənənə və təməl üzərində milli ideologiyanın formalaşması və inkişafı naminə misilsiz xidmətlər göstərmiş, milli düşüncənin düzgün məcrada inkişafına nail olmuş, xalqa məxsus ənənə və dəyərlər sistemini qloballaşmanın sərt təsirlərindən qorumağı bacarmışdır. Çağdaş tariximizə öz möhürünü vurmuş Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə, cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur. Milli irs və düşüncə sistemindən qaynaqlanan bu ideya dərin məzmun yükü ilə cəmiyyətin təkamül prosesində, tərəqqisində və monolitliyində aparıcı amilə çevrilməkdən savayı, həm də ümummilli liderə xalqı öz ətrafında birləşdirmək, milli ideallar ətrafında səfərbər etmək imkanı yaratmışdır.

Müstəqillik illərində Azərbaycanın milli ideologiyası ilk dəfə Yeni Azərbaycan Partiyasının nizamnaməsində əksini tapmışdır. 1998-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının 6-cı ildönümünə həsr olunmuş təntənəli yığıncaqda ümummilli lider Heydər Əliyev milli ideologiyanın şərhinə geniş yer verərək demişdir ki, dövlətçilik, milli-mənəvi və bəşəri dəyərlər azərbaycançılıq ideologiyasının əsasını təşkil edir. Dünya Azərbaycanlılarının 2001-ci ilin 9-10 noyabrın-da keçirilmiş I Qurultayında isə ümummilli lider Heydər Əliyev demişdir: *"Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir ".*

Ulu öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasında vahid polietnik millətin Azərbaycan dövlətçiliyinin yaradılmasına dair maraqlarının ümumiliyi, demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat

şəraitinin inkişafı uğrunda mübarizəsinin məqsədləri öz əksini tapmışdır. İdeologiya kimi azərbaycançılıq müstəqil Azərbaycanın fəlsəfi-sosial doktrinasının sosiomədəni və etnik-geosiyasi cəhətlərini özündə birləşdirmişdir. Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində Azərbaycan dövlətinin qarşısında duran vəzifələri, onların Azərbaycan Respublikasına münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri, azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiya kimi nəzərdə tutulur. O, milli inkişafın mədəni-tarixi təbəqəsi olmaqla, strateji inkişafın əsas yollarının və istiqamətlərini müəyyənləşdirir, milli dilimizin sarsılmazlığında, milli mədəniyyətin üstün rolunda və milli dəyərlərin sanbalında öz əksini tapır. Ölkəmizin əksər ictimai-siyasi qüvvələrinin qəbul etdiyi azərbaycançılıq ideologiyasının diaspor quruculuğunda üstün cəhəti ilk növbədə onun milli maraqlarımızın tam palitrasını əhatə etməsidir. Milli-mənəvi, islamı-əxlaqi, dünyəvi-humanitar dəyərləri, Şərq və Qərb mədəniyyətlərinin dialoqunu, türkçülük və avropaçılıq meyillərini, tarixi təkamüldə varislik və tərəqqiçiliyi ahəngdar şəkildə ehtiva edən azərbaycançılıq ideologiyası məhz buna görə də çox müxtəlif coğrafi regionlarda, sosial-siyasi sistemlərdə, mədəni mühitlərdə formalaşmış diasporumuz üçün də cəlbedicidir.

Xalqlararası və mədəniyyətlərarası dialoqu müasir qloballaşma dövründə daha da inkişaf etdirmək, ona dəstək vermək, bütün insanların gələcəyi naminə mədəniyyətlərin və dinlərin qarşılıqlı dialoquna nail olmaq bu gün də dövlət siyasətinin mühüm tərkib hissəsidir. Ulu öndərin siyasi ideallarına tapman dövlət başçısı İlham Əliyev milli-mənəvi dəyərlər sisteminə xüsusi qayğı göstərməklə yanaşı, haqlı olaraq vurğulayır ki, demokratik prinsiplərlə yaşamaq, bu yönümdə inkişaf etmək arzusunda olan hər bir dövlət ölkəsində cəmiyyət daxili tolerantlığın bərqərar olmasını təmin etməlidir.

*Dövlət başçısı xalqın vahid məqsədlər naminə səfərbər olmasında, milli diaspor hərəkatının formalaşması və inkişafında azərbaycançılıq ideologiyasının müstəsna roluna daim xüsusi diqqət yetirir. Cənab İlham Əliyev xüsusi vurğulayır ki, azərbaycançılıq məfkurəsində etnik mənsubiyyətindən asılı olmayaraq xarici ölkələrə köçmüş bütün vətəndaşlara hüquqi və mənəvi baxımdan bərabər münasibət var. Milli dövlətçilik ideyası, dövlət müstəqilliyimizin əbədiliyi və dönməzliyi fikri, Azərbaycan Respublikasının bütün azərbaycanlıların milli sərvəti, bütün soydaşlarımızın vətəni hesab edilməsi azərbaycançılığın mühüm meyarlarındandır. Bu konseptual ideya özlüyündə əhəmiyyətli olmaqla bərabər, xaricdə yaşayan soydaşlarımızın ölkəmizlə iqtisadi əlaqələrinin inkişafı, onların müxtəlif maraqlarının hüquqi təminatı üçün də ciddi əsaslar yaradır.*

## MÖVZU İLƏ BAĞLI TÖVSİYƏ OLUNAN ƏDƏBİYYAT

1. Dünya azərbaycanlılarının I qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi //Azərbaycan, 10 noyabr 2001

2. Azərbaycan mədəniyyətinə Heydər Əliyev qayğısı // Xalq qəzeti, 19 iyul 1997

3. Hüseynova İ. Azərbaycan Qafqazda lider dövlətdir // Dirçəliş-XXI əsr, 2008, №118-119, s. 344-354

4. Olub-keçənləri düşünərkən. Heydər Əliyevlə müsahibə // Ulduz, 1990, №6, s. 5-9

5. Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı, 2001, 324 s.

6. Qəndilov S. Azərbaycan Heydər Əliyevlə müstəqillik yollarında // Dirçəliş-XXI əsr, 2001, №44, s. 80-86

7. Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı: XXI əsr, Yeni nəşrlər evi, 2005, 433 s.

8. Mehdiyev R. Azərbaycanda siyasət: dünən, bu gün və sabah // Dirçəliş-XXI əsr, 2002, №49. s. 68-85

9. Гусейнова И. Гейдар Алиев и национально-духовные ценности азербайджанского народа // Dircəliş-XXI əsr, 2009, № 128-129, с. 73-90

10. Мирзазаде А. Мир о Гейдаре Алиеве // Возрождение - XXI век, 1999, № 3-4, с. 13-22

LEADER WHO UNITED SOCDZTY FOR NATIONAL IDEA. *Irada Huseynova.* The article in philosophic and political context considers historical phenomenon of work of nationwide leader Heydar Aliyev on creation democratic grounds in Azerbaijan statehood and development ideology of Azerbaijanism in the context of national moral values and national self-consciousness, harmoniously combining to the author's opinion with formation of national aim, a priori including a component of common human moral values.

ЛИДЕР, ОБЪЕДИНИВШИЙ ОБЩЕСТВО ВОКРУГ НАЦИОНАЛЬНОЙ ИДЕИ. *Ирада Гусейнова.* В статье в философско-политическом контексте рассматривается исторический феномен

деятельности общенационального лидера Гейдара Алиева по созданию демократических основ азербайджанской государственности и развитию идеологии азербайджанства в контексте национальных духовных ценностей и национального самосознания, гармонично сочетающихся по мнению автора с формированием национальной идеи, априори включающей компоненту общечеловеческих духовных ценностей.

**«Dirçəliş XXI əsr».**–2009.-№139-140.–S.106-114.

# HEYDƏR ƏLİYEVİN YAŞAYAN VƏ YAŞADAN İDEYALARI

**Süleyman İSMAYILOV,**
Azərbaycan Respublikası Prezidentinin
Administrasiyasının şöbə müdiri,
YAP Siyasi Şurasının üzvü

Tarixi şəxsiyyətlərin böyüklüyü illər keçdikcə daha aydın görünür. Uca dağların zirvəsi uzaqdan əzəmətli göründüyü kimi, millətinin tarixində dərin iz qoymuş, onun keçmişini yaratmış və gələcəyini müəyyən etmiş insanların da işi və ideyaları zaman məsafəsindən daha uca görünür, daha aydın nəzərə çarpır. Bu ucalığa, bu zirvəyə boylandıqca insan sevinir, heyrətlənir və düşünür. Təbiidir ki, belə şəxsiyyətlərin taleyi həmişə çətin və keşməkeşli olur, çünki onlar özlərinin bütün mənalı ömürlərini fədakarcasına vətəninin, millətinin tərəqqisinə, onun dövlətinin möhkəmləndirilməsinə həsr edirlər.

Keçmişin və yaşadığı dövrün reallıqlarını nəzərə alaraq mümkün olanı, hətta ondan da artığını, yəni mümkün olmayanı da etmiş bu şəxsiyyətlərin gözəl işləri, xeyirxah əməlləri, müdrik ideyaları xalqın və dövlətin gələcəyinə işıq salır. Belə şəxsiyyətlərin varlığı ilk növbədə onları yetirən millətin xoşbəxtliyidir və ulu Tanrının həmin xalqa verdiyi ilahi bəxşişdir.

Bu baxımdan Azərbaycan tarixinin ən şanlı səhifələrini yazmış ulu öndər Heydər Əliyevin keçdiyi həyat yolu, bizə və gələcək nəsillərə miras qoyduğu mənəvi irsi misilsiz sərvət, əvəzsiz nümunədir. Təkcə Azərbaycan xalqının deyil, bütün türk dünyasının fəxri olan bu böyük insanın gördüyü işlər, söylədiyi fikirlər haqqında hələ çox əsərlər yazılacaq, çox sözlər deyiləcəkdir. Bununla yanaşı, Heydər Əliyevin hər bir insanın qəlbində öz yeri, öz obrazı, hər bir vətəndaşın taleyində öz izi vardır. Onun dolğun və bütöv şəxsiyyət obrazı hər bir azərbaycanlıya həmişə canlı nümunə olmuş və gələcəkdə də mükəmməl örnək olacaqdır.

Heydər Əliyevin başladığı hər bir iş, atdığı hər bir addım Azərbaycan dövlətinin müstəqilliyinin əbədi və dönməz olmasına xidmət göstərmişdir. Bunlar Azərbaycanın bir dövlət kimi mövcudluğunu, inkişaf strategiyasının əsas istiqamətlərini müəyyən etmişdir.

Böyük rəhbərin şərəfli ömür yoluna nəzər saldıqda, onun öz gücünü xalqına və vətəninə olan məhəbbətindən aldığını, özünün bütün istedad və qabiliyyətini səfərbər edərək bu yolda ən çətin maneələri dəf etdiyini görürük.

1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başladığı ilk gündən o zaman ən geridə qalmış respublikalardan biri sayılan Azərbaycanı qısa vaxt ərzində keçmiş İttifaqın ən qabaqcıl respublikaları səviyyəsinə qaldıran, sürətli inkişafını təmin edən bu yorulmaz insanın gördüyü böyük quruculuq işlərinə bu gün tarixin prizmasından nəzər saldıqda onun uzaqgörənliyinə heyrət etməmək olmur.

Azərbaycan xalqının tükənməz gücünə, zəngin potensialına dərindən inanan Heydər Əliyev böyük qətiyyətlə onu səfərbər edə bilmiş, bugünkü müstəqilliyimizin iqtisadi, siyasi, mənəvi əsaslarını hələ o illərdə yaratmağa başlamışdı. Onun respublikaya rəhbərlik etdiyi sovetlər dönəmində Azərbaycan neft və pambıq xammalı mənbəyindən o dövr üçün ən müasir texnologiyaların geniş tətbiq olunduğu yüksək sənaye respublikasına çevrilmişdi. O illərdə Heydər Əliyev ilk növbədə bugünkü dövlət müstəqilliyimizin əsası olan güclü iqtisadi bazanı yarada bilmiş, respublikanın özünü elektrik enerjisi və digər zəruri vasitələrlə tam təmin etməsinə şərait yaratmışdı. Azərbaycanın mənzərəsi tamamilə dəyişilmiş, respublikanın hər yerində böyük abadlıq işləri getmiş, yeni zavod və fabriklər, elektrik stansiyaları, su kəmərləri, meliorasiya qurğuları, Azərbaycan üçün tamamilə yeni müəssisələr istifadəyə verilmiş, ən başlıcası, bu sahələrdə işləyə bilən güclü kadr potensialı yetişdirilmişdi.

Bununla yanaşı, ölkəmizin elmi, mədəniyyəti, incəsənəti də yeni inkişaf səviyyəsinə qaldırılmış, Azərbaycanın zəngin tarixi bütün dünyaya tanıdılmışdır. Bunlar hamısı onun zəhmətinin və böyük təşkilatçılıq işinin bəhrəsi idi.

Ən əsası budur ki, ulu öndər xalqımızın özünə, öz gücünə, qüdrətinə inamını bərpa etmişdi. Çünki özü xalqının gücünə və qüdrətinə inanırdı, həyatının mənasını isə doğma vətəninə xidmətdə görürdü. Heydər Əliyev deyirdi: “Biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dününinə, həm bugününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır”.

Ulu öndər insan həyatının fəlsəfəsini belə izah edirdi: “Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət nümunəsi göstərmək və başqaları üçün nümunə olmaqdır “. Bu gün heç kəs inkar edə bilməz ki, Heydər Əliyev ömrü başdan-başa elə ləyaqət timsalı, ləyaqət nümunəsidir.

Uzaqgörən rəhbərin o dövrdə gördüyü mühüm işlərdən biri də ölkəmizin sonrakı taleyində və inkişafında mühüm rol oynayan yüzlərlə Azərbaycan gəncini oxumaq üçün keçmiş Sovetlər İttifaqının ən güclü ali məktəblərinə göndərməsi idi. Həmin kadrlar Azərbaycanın inkişafına öz töhfələrini vermiş və verməkdədirlər. Bu baxımdan hərbi kadrları xüsusi qeyd etmək lazımdır.

1920-ci ildə sovet hakimiyyəti qurulduqdan sonra öz ordusundan məhrum olan Azərbaycan xalqı Böyük Vətən müharibəsi illərində qəhrəmanlıqla vuruşaraq, minlərlə qurban verərək, Həzi Aslanov kimi böyük hərbi sərkərdələr yetirsə də, sovet ordusunda azərbaycanlı zabitlərin, xüsusilə yüksək rütbəli zabitlərin olmaması Heydər Əliyevin qəlbini bir vətəndaş kimi ağrıdırdı. Buna görə də o, C. Naxçıvanski adına hərbi liseyi yaratmışdı. Moskvanın etdiyi etirazlara baxmayaraq, həmin liseyi Azərbaycanın gələcək hərbi kadrları üçün güclü qaynağa, mənbəyə çevirə bilmişdi. Çox sonralar, 2003-cü ilin aprel ayında həmin liseyin 30 illik yubileyində Heydər Əliyev deyirdi: "Bu məktəbi yaradanda heç ağlıma gətirə bilməzdim ki, 30 ildən sonra mən yenə də bu məktəblə bir yerdə onun yubileyini keçirəcəyəm. Ancaq bu, mənə qismət olub və çox şadam ki, həqiqətən belə şərəfli iş mənə nəsib olubdur. 1972-1973-cü illərdə məktəbə daxil olmuş gənclər, uşaqlar indi burada çıxış edirlər. İndi onlar generallar, polkovniklərdir. Korpusa komandanlıq edirlər, böyük hərbi hissələrə komandanlıq edirlər. Mənim arzum bu idi. Mən bu arzuma çatmışam. Ona görə də özümü çox xoşbəxt hiss edirəm ".

Təkcə bu lisey idimi onun yaratdığı? O dövrdə Azərbaycanın paytaxtında fəaliyyət göstərən Ali Ümumqoşun Komandirləri Məktəbi və Ali Hərbi Dənizçilik Məktəbi də onun diqqətindən kənarda qalmamışdı. O, respublikanın rəhbəri və Zaqafqaziya Hərbi Dairəsi Siyasi Şurasının üzvü kimi həmin məktəblərdə olarkən burada cəmi 20 azərbaycanlı tələbənin oxuduğunu görmüşdü. Buna görə də o zaman Almaniyadakı sovet qoşunlarında xidmət edən general Valeh Bərşadlını Azərbaycana dəvət edərək onu Ali Ümumqoşun Komandirləri Məktəbinə rəis təyin etdirmişdi. Bundan sonra Heydər Əliyevin səyləri ilə təkcə həmin məktəbdə azərbaycanlıların sayı 50 faizə çatmışdı. Burada da o, böyük maneələrlə qarşılaşmışdı. Özü də bu, Heydər Əliyevin qarşılaşdığı ilk və son maneə deyildi.

Heydər Əliyevin böyük təşkilatçılıq qabiliyyəti və istedadı artıq bütün İttifaqa səs salmış, hətta beynəlxalq miqyasda tanınmışdı. Məhz fitri rəhbərlik istedadını və dövlət xadimi üçün zəruri olan ən yüksək keyfiyyətləri özündə birləşdirdiyinə görə o zamankı sovet rəhbərliyi onu Moskvaya dəvət edərək Sov.İKP MK Siyasi Bürosunun tərkibinə daxil etmiş və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkmişdi. Azərbaycanda başladığı böyük quruculuq işlərini davam etdirmək və tamamlamaq arzusu nə qədər güclü olsa da, o, həmin təklifdən boyun qaçıra bilməmişdi. Beləliklə, Heydər Əliyev keçmiş SSRİ rəhbərliyində təmsil olunan ilk azərbaycanlı, ilk müsəlman olmuşdu.

Heydər Əliyevin Moskvada çalışdığı illər xüsusi tədqiqat və geniş söhbət mövzusudur. Ancaq qeyd etmək lazımdır ki, o, həmin illərdə də daim Azərbaycanın maraqları ilə yaşayır, Azərbaycanın tərəqqisi üçün əlindən gələni edir və buna kifayət qədər nail olurdu. O illərdə SSRİ rəhbərliyi ən çətin sahələrin, ən məsuliyyətli vəzifələrin icrasını Heydər Əliyevə tapşırmaqla sanki onu sınağa çəkirdi. 20-dən artıq İttifaq nazirliyinə rəhbərlik edən Heydər Əliyev qısa vaxtda bütün Sovet İttifaqında özünə böyük rəğbət qazana bilmiş, öz işgüzarlığı, prinsipiallığı, qayğıkeşliyi ilə insanların qəlbində öz yerini tutmuşdu. Heydər Əliyevin dünyagörüşü, təfəkkürü o qədər geniş və hərtərəfli idi ki, hər bir sahənin ən tanınmış mütəxəssisləri onun ömrü boyu bu sahə ilə məşğul olduğunu güman edirdi. Həmin dövrdə SSRİ rəhbərliyində təmsil olunmuş bir çox görkəmli dövlət xadimləri, onunla ünsiyyətdə olan rəhbər işçi və ziyalılar onun zəngin erudisiyasına, müxtəlif sahələri incəliklərinə qədər öyrənməsinə heyran qalırdı. Bunlar həmin insanların xatirələrində böyük məhəbbət hissi ilə qələmə alınmışdır.

Heydər Əliyevin rəhbərlik etdiyi əsas sahələrdən biri keçmiş SSRİ-nin ən böyük problemlərindən sayılan nəqliyyat sahəsi idi. O dövrdə əsrin ən böyük tikintilərindən sayılan Baykal-Amur Magistralının inşasına nəzarət edən komissiyanın işinə məhz Heydər Əliyev rəhbərlik edirdi. BAM-ın tikintisində Azərbaycanın və azərbaycanlıların əməyi az olmamışdır. Hələ Azərbaycanda işləyərkən Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış "AzBAMstroy" Tikinti Quraşdırma İdarəsi vasitəsilə burada böyük işlər görülmüşdür, o cümlədən Azərbaycan memarlarının layihələri əsasında Ulkan və Anqoya-stansiya qəsəbələri tikilmişdir. Təsadüfi deyildir ki, lap bu yaxınlarda, yəni 2008-ci ildə Rusiya dövlətinin qərarı ilə Baykal-Amur Magistralının Şərqi Sibir dəmir yolunun Anqoya stansiyasına ulu öndərin adı verilmişdir.

Moskvada fəaliyyət göstərdiyi illərdə Heydər Əliyev beynəlxalq aləmdə də görkəmli ictimai-siyasi xadim kimi tanınmış, onun böyük siyasi iradəyə və idarəçilik bacarığına malik olması dünyanın məşhur siyasətçiləri və dövlət xadimləri tərəfindən etiraf edilmişdir. Çünki Heydər Əliyev hansı sahəyə rəhbərlik edir-etsin, hansı vəzifədə olur-olsun, həmin sahəyə yeni ruh, yeni nəfəs gətirə, bu işə yeni vüsət verə bilirdi. Bu, hər şeydən əvvəl onun qeyri-adi zəkasından, təşkilatçılıq qabiliyyətindən, bir sözlə, şəxsi keyfiyyətlərindən irəli

gəlirdi. Yəni vəzifə onu yox, o, vəzifəni ucaldırdı. Çünki özünün dediyi kimi: "Vəzifə insana heç bir şey vermir, sadəcə olaraq səlahiyyət verir, qalan hər bir şey onun ağlından, zəkasından, biliyindən, mədəniyyətindən asılıdır".

Lakin Heydər Əliyevin bu istedad və bacarığına qısqanclıqla yanaşanlar, onu gözü götürməyənlər də az deyildi. Heydər Əliyevin gündən-günə artan nüfuzu çoxlarına sərf etmir və buna görə də ona qarşı saysız-hesabsız haqsızlıqlar baş verirdi. Xüsusilə Azərbaycanda Dağlıq Qarabağ münaqişəsinin yaradılmasında və 20 Yanvar faciəsinin törədilməsində bilavasitə günahkar olan Mixail Qorbaçovun ona qarşı tutduğu mövqe dözülməz idi.

O zaman M.Qorbaçov və onun ən yaxın ətrafı Heydər Əliyevə qarşı çirkin böhtan kampaniyasının başlanmasına start verdilər və təəssüf ki, bu işdə vaxtilə Heydər Əliyevin vəzifəyə gətirdiyi, etimad göstərərək irəli çəkdiyi bəzi azərbaycanlı rəhbər kadrlardan da fəal istifadə edilirdi. İş burasındadır ki, bu böyük haqsızlıqlara nəinki həmin dövrün sərt sınaqlarından mətanətlə, dözümlə çıxan Heydər Əliyevin özünə, hətta ailə üzvlərinə, o cümlədən Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunu müvəffəqiyyətlə bitirərək 23 yaşında elmi dərəcə almış, həmin institutda dərs deyən oğlu İlham Əliyevə qarşı da yol verilirdi. Heydər Əliyev kimi böyük siyasi xadimin SSRİ rəhbərliyindən uzaqlaşdırılması və Azərbaycana qayıtmasına ciddi maneələr törədilməsi isə ən çox Azərbaycan xalqına vurulan zərbə, ona qarşı törədilən sui-qəsd idi.

1990-cı ilin Qanlı Yanvar hadisələrini Azərbaycan xalqı heç zaman unutmayacaqdır. Daim təqib və nəzarət altında olmasına baxmayaraq, Azərbaycan xalqının vətənpərvər övladı Heydər Əliyev öz çiyinlərinə düşən böyük məsuliyyəti dərk edən siyasi xadim kimi elə həmin günün səhəri bütün dünyaya səs salan çıxışı ilə bu hadisələrin əsl səbəbkarlarını və günahkarlarını sərt ittiham etdi. Onun bu çıxışının xalqdan gizlədilməsinə səy göstərilsə də, xalq hər şeydən xəbərdar oldu və Azərbaycanın böyük xilaskarının yenidən respublikaya qayıtmasını, bəlalardan qurtarmaq missiyasının ona həvalə olunmasını tələb etməyə başladı.

Böyük rəhbərin o dövrdə yaşadığı mürəkkəb və gərgin anlar haqqında indi hamının məlumatı vardır. Onun 1991-ci il iyulun 19-da atdığı qətiyyətli addım bütün dünyada rezonans doğurdu və kommunizm ideyalarının iflasa uğradığını təsdiq etdi. Heydər Əliyev uzun illər sədaqətlə xidmət etdiyi və rəhbərlik etdiyi Kommunist Partiyasının sıralarını tərk edərkən bunu ilk növbədə 1990-cı ilin Yanvar hadisələrinə siyasi qiymət verilməməsi, sovet rəhbərliyinin Azərbaycana qarşı tutduğu qərəzli mövqe ilə izah etmişdi. Həmin il avqustun 29-da Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında isə Heydər Əliyev Azərbaycan xalqının birliyi üçün Kommunist Partiyasının hakimiyyətdən getməsi təklifini irəli sürmüşdü. Ancaq yanvar hadisələrindən sonra respublikanı idarə edən şəxslər xalqın mənafeyi və tələbi ilə hesablaşmayaraq yalnız öz kreslolarını qorumaqla məşğul idilər, onlar Azərbaycanın başının üstünü almış qara buludları sanki görmürdülər.

1990-cı il iyulun 20-də böyük çətinliklə Azərbaycana qayıdan Heydər Əliyev sonralar xatırlayırdı: "Moskvada məni təqib edirdilər… Hətta yanvar hadisələrindən sonra hərəkətlərimə görə mənə qarşı repressiya planları hazırlanmışdı və onları həyata keçirmək istəyirdilər. Bakıya gələndə xalq tərəfindən mənim gəlişim böyük ruh yüksəkliyi ilə qəbul olundu, lakin hakimiyyətdə olan ayrı-ayrı şəxslər tərəfindən Bakıda yaşamağıma imkan verilmədisə də, mən Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı, Naxçıvan məni qucaqladı, bağrına basdı. Görünür, mənim Naxçıvana gəlməyim taleyin işi imiş ".

Azərbaycanın 1988-1993-cü illər dövrü bəlkə də onun tarixində ən mürəkkəb və faciəli bir dövr idi. Moskvanın buyruğu ilə oturub duran, onun qərarlarını kor-koranə yerinə yetirən Vəzirov və Mütəllibov rejimləri respublikanı nə qədər bərbad günə qoymuşdularsa, onların bacarıqsızlığından və qətiyyətsizliyindən istifadə edərək hakimiyyətə gəlmiş cəbhəçi-müsavatçıların səriştəsizliyi ucbatından ölkə tamamilə dağılmaq və məhv olmaq təhlükəsi qarşısında qalmışdı.

Bu gün xalqımızın böyük ürək ağrısı ilə xatırladığı həmin illərdə Azərbaycanın bir ümid çırağı da var idi. Həmin ümid çırağı Heydər Əliyev idi. O, Naxçıvanda xalqın böyük təkidi ilə muxtar respublika Ali Sovetinin Sədri seçilmişdi, olduqca dözülməz blokada şəraitində Azərbaycanın bu qədim diyarını erməni işğalından qoruyub saxlayırdı. Mərkəzi hakimiyyətin təzyiqlərinə baxmayaraq, Naxçıvanda Azərbaycanın müstəqillik atributlarını bərpa edir, muxtar respublikanı blokadadan qurtarmaq üçün onu qardaş Türkiyə ilə birləşdirən "Ümid körpüsü"nü salırdı.

Respublikanın bütün şüurlu insanları vətənin xilasını Heydər Əliyevin simasında görərək ona saysız-hesabsız müraciətlər edir və Naxçıvanda onu ziyarət edərək xilaskarlıq missiyasını öz üzərinə götürməsini xahiş edirdilər. Cəbhəçilər isə Azərbaycanın başının üstünü almış təhlükəni aradan qaldırmaq yollarını çox gözəl bilən bu böyük siyasətçi ilə heç məsləhətləşmək belə istəmir, öz düşünülməmiş hərəkətləri ilə respublikanı uçuruma yuvarlayırdılar. Bunun nəticəsi olaraq 1993-cü ilin məlum iyun hadisələri baş verdi. Surət Hüseynovun Gəncədə başladığı qiyam, Əlikram Hümbətovun cənub bölgəsində başladığı separatçılığın şimal bölgəsinə də sirayət etməsi, Rəhim Qazıyev kimi üzdəniraq siyasətçilərin Rusiya ilə sövdələşmələri nəticəsində Azərbaycanın bir

respublika kimi yer üzündən silinmək təhlükəsi yaranmışdı. Bunu görən Əbülfəz Elçibəy rejimi də Heydər Əliyevsiz keçinmək mümkün olmadığını dərk etdi və təkidlə onun Bakıya gəlməsini xahiş etdi.

Hadisələrin sonrakı axarı və xalqın böyük təkidi nəticəsində 1993-cü il iyunun 15-də Heydər Əliyev nəhayət Bakıya gələrək dənizdə sükanını itirmiş gəmiyə bənzəyən Azərbaycanın idarə olunmasını öz öhdəsinə götürdü. Bu zaman xalqın daha mütərəqqi hissəsini, qabaqcıl ziyalılarını və siyasətçilərini birləşdirən Yeni Azərbaycan Partiyası artıq formalaşmağa və xalqın böyük əksəriyyətini bilavasitə Heydər Əliyev kimi görkəmli siyasi xadimin ətrafına toplamağa nail olmuşdu.

1992-ci ilin noyabrında qarlı-şaxtalı Naxçıvanda yaradılmış Yeni Azərbaycan Partiyasının məqsəd və vəzifələri hər bir Azərbaycan vətəndaşının arzu və istəklərini özündə əks etdirirdi. Bu gün biz Heydər Əliyev ideyalarından danışarkən Yeni Azərbaycan Partiyasının bilavasitə ulu öndər tərəfindən yazılmış məramnaməsinə dönə-dönə nəzər salmalı, orada Heydər Əliyevin qurmaq istədiyi, görmək istədiyi yeni Azərbaycanın mənzərəsini gözümüz önündə canlandırmalıyıq.

Bu çətin dövrün xronikasını sadalamağa burada imkan olmadığından Heydər Əliyevin layiqli varisi, indiki Prezident cənab İlham Əliyevin hələ 1998-ci ildə keçirilmiş prezident seçkilərinin yekunları ilə bağlı verdiyi bir müsahibəsində dediyi sözləri xatırlatmaq yerinə düşərdi. Cənab İlham Əliyev deyirdi: “Mən Prezidentə xalqın məhəbbətini, xalqın inamını öz gözümlə gördüm, çünki Prezidentin bütün bölgələrə səfərlərində mən onun yanındaydım. Mən bildim ki, xalq Heydər Əliyevə inanır, Heydər Əliyevi dəstəkləyir, Heydər Əliyevi sevir və Heydər Əliyevə alternativ görmür”.

Həmin müsahibəsində cənab İlham Əliyev 1998-ci ili 1993-cü illə müqayisə edərək onda Azərbaycan ictimaiyyətini tamam başqa problemlərin narahat etdiyini, gündəlikdə tamam başqa məsələlərin durduğunu bildirirdi. Bu problemləri həll etmək, Azərbaycanı parçalanmaqdan xilas etmək, vətəndaş müharibəsinə son qoymaq, Ermənistanla Azərbaycan arasında olan müharibəni dayandırmaq, atəşkəs rejimini saxlamaq, qeyri-qanuni silahlı birləşmələri tərksilah etmək, sabitlik yaratmaq asan deyildi. Lakin Heydər Əliyev 5 ildə bu problemlərin hamısını həll etmiş, 1996-cı ildən başlayaraq ölkədə yaranmış sabitlikdən istifadə edərək böyük quruculuq işlərinə başlamışdı. Cənab İlham Əliyev hələ o zaman inamla qeyd edirdi ki, 2003-cü ilə qədər iqtisadi və sosial problemlərin bir çoxu öz həllini tapacaq və 2003-cü ildə gündəlikdə tamam başqa məsələlər duracaq. Cənab İlham Əliyev çox düzgün qeyd edirdi ki, əgər 1993-cü ildə qəti addımlar atılmasaydı, 1998-ci ildə Azərbaycan dövləti haqqında bəlkə də söhbət getməyəcəkdi.

Heydər Əliyevin 2003-cü ilə qədər gördüyü əsas işləri saymaqla qurtarmaq olmasa da, burada ilk növbədə ölkədə sabitliyin bərqərar olmasını, müstəqil Azərbaycan dövlətinin yeni Konstitusiyasının qəbul edilməsini, demokratik-hüquqi dövlətin hüquqi bazasının yaradılmasını, bunun əsasında iqtisadi islahatlara başlanılmasını, birinci özəlləşdirmə proqramının, torpaq islahatının başa çatdırılmasını, ölkədə sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılmasını qeyd etmək olar. Lakin bunların hamısının əsasında onun böyük uğurla hazırlayıb həyata keçirdiyi yeni neft strategiyasının dayandığını demək lazımdır. Bu strategiyanın həyata keçirilməsi Azərbaycanın bütün sonrakı qələbələrinin əsasını təşkil etmişdir. “Əsrin müqaviləsi”nin hazırlanmasında və həyata keçirilməsində isə o zaman Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti vəzifəsində çalışan, 2003-cü ildən isə Azərbaycana uğurla rəhbərlik edən cənab İlham Əliyevin əvəzsiz rolu və xidmətləri danılmazdır.

İndi dünya sanki sıxlaşıb, müasir rabitə və nəqliyyat sistemləri ölkələri bir-birinə daha da yaxınlaşdırıb. Belə bir şəraitdə geosiyasi vəziyyət tez-tez dəyişir, qloballaşma dövrü kimi səciyyələndirilən müasir şəraitdə dünyadan təcrid olunmaq, sadəcə, mümkünsüzdür. İndiki dövrdə xüsusilə mürəkkəb geosiyasi vəziyyətdə olan bir ölkəyə rəhbərlik etmək, onu yüksək sürətlə inkişaf etdirmək olduqca böyük qətiyyət, möhkəm iradə tələb edir.

Məhz bu qətiyyət və iradəni cənab İlham Əliyev 2003-cü ilin oktyabrında keçirilən prezident seçkilərində və öz prezidentliyinin birinci dövründə nümayiş etdirdi. O, ilk andiçmə mərasimindəki nitqində Azərbaycanın bundan sonra da həmişə ümummilli lider Heydər Əliyev ideyalarına sadiq qalacağını, daxili və xarici siyasətdə Heydər Əliyev xəttini yeridəcəyini, hər bir azərbaycanlının Prezidenti olacağını bütün dünyaya bəyan etdi.

Dövlətimizin başçısı Heydər Əliyev ideyalarına sadiqliyini ölkənin sosial-iqtisadi inkişafını yeni səviyyəyə yüksəltməkdə, aparılan islahatları daha da sürətləndirməkdə və dərinləşdirməkdə, respublikanın iqtisadi müstəqilliyini tam təmin etməkdə görürdü. O öz prezidentliyinin birinci dövründə imzaladığı ilk fərmanları ilə Azərbaycanın yaxın 4 ildə sosial-iqtisadi inkişafının əsas istiqamətlərini müəyyən etdi. Azərbaycanın tarixində yeni dövr – İlham Əliyev dövrü başlandı. Cənab İlham Əliyev Heydər Əliyev ənənələrinə sadiq qalaraq atacağı hər bir addımı, görəcəyi hər bir işi dərindən ölçüb-biçmək üçün respublikanın

sonrakı inkişafının hər bir sahəsi üzrə konkret, elmi cəhətdən əsaslandırılmış proqramların hazırlanmasına göstəriş verdi.

2008-ci ilin yekunları və həmin ilin oktyabrında keçirilən prezident seçkiləri Azərbaycan xalqının böyük əksəriyyətinin cənab İlham Əliyevin yeritdiyi siyasəti dəstəklədiyini, ona inandığını və Azərbaycanın gələcəyini ona etibar etdiyini bir daha təsdiq etdi.

Cənab İlham Əliyevin ölkə rəhbəri olduğu dövrdə respublikanın əldə etdiyi uğurları isə bir neçə rəqəmlə göstərmək kifayətdir. 2003-2008-ci illərdə respublikada ÜDM 2,7 dəfə artmış, onun adambaşına düşən həcmi 5800 ABŞ dollarına çatmışdır. Son 5 il ərzində sənaye istehsalı da 2,7 dəfə artmış, dövlət büdcəsinin xərcləri 2003-cü ildəki 1 milyard 200 milyon dollardan 2008-ci ildə 15 milyard dollara çatmışdır. 2003-2008-ci illərdə ölkə iqtisadiyyatına təqribən 44 milyard dollar investisiya qoyulmuşdur ki, bu da bütün müstəqillik illərində Azərbaycan iqtisadiyyatına qoyulmuş investisiyaların 77 faizi deməkdir. 2003-cü ildə Azərbaycanın valyuta ehtiyatları 1 milyard 600 milyon ABŞ dolları idisə, indi bu rəqəm 18 milyard dollardan çoxdur.

Bu illər ərzində 766 min, o cümlədən 2008-ci ildə 120 min iş yeri açılmışdır ki, bunun da 548 mini daimi iş yeri olmuşdur.

Heydər Əliyevin işinin davamçısı, siyasi irsinin birbaşa varisi və övladı kimi Prezident İlham Əliyevin bu böyük şəxsiyyət haqqında dediyi sözlər hər bir azərbaycanlının ürəyindən xəbər verən sözlərdir. O bildirir: "Mən Heydər Əliyevin oğlu olmağımı özüm üçün böyük xoşbəxtlik sayıram. Böyük insanın oğlu olmaq, habelə mühüm qərarlar qəbul edilən anlarda onun yanında olmaq böyük xoşbəxtlikdir. Bu gün onun işi yaşayır, siyasəti yaşayır və mən əminəm ki, Azərbaycan onun istədiyi kimi inkişaf edir. Əlbəttə ki, mən həmişə ona oxşamağa çalışmışam. Çünki siyasətçi keyfiyyətləri ilə yanaşı, o, həyatda hamıya nümunə ola biləcək adam idi. Səni maraqlandıran bir suala cavab almadan ondan aralanmaq mümkün deyildi. Sizə deməliyəm ki, prezidentliyimin ilk illərində elə məqamlar olmuşdur ki, mən fikirləşirdim: bu vəziyyətdə Heydər Əliyev nə edərdi? Lakin təəssüf ki, bunu bilmək imkanım yox idi. Amma düşünürəm ki, o, son beş ildə görülmüş işlərin hamısını bəyənərdi. Özünün əsəri olan Azərbaycanı bugünkü səviyyədə görsəydi, şad olardı".

Bu gün Azərbaycana rəhbərlik edən Prezident İlham Əliyevi ümummilli lider Heydər Əliyevlə birləşdirən bir çox ümumi cəhətlər vardır. Lakin onlardan bəzilərini xüsusi qeyd etmək lazımdır. Bu, ilk növbədə vətən, dövlət və millət qarşısında məsuliyyət hissidir. Biz əvvəldə ulu öndərin bu barədə bəzi fikirlərini qeyd etmişdik. Bu məsuliyyət hissi cənab İlham Əliyevin də bütün həyatının məğzini təşkil edir və ətrafında olan hər bir kəsdən də bunu qətiyyətlə tələb edir. Cənab İlham Əliyev hakimiyyətin nədən ibarət olması barədə öz düşüncələrini açıqlayaraq deyir: "Mən deyərdim ki, bu gün hakimiyyəti beş il əvvəlkindən fərqli başa düşürəm. O vaxt mənim üçün hakimiyyət, ilk növbədə, böyük məsuliyyət yükü idi. Həm atamın xatirəsi qarşısında, həm ölkə qarşısında, həm də xalq qarşısında məsuliyyət idi. Başa düşürdüm ki, Azərbaycanın gələcəyi mənim görəcəyim işlərdən asılı olacaqdır. Bu gün deyə bilərəm ki, bu məsuliyyət hissi məni heç vaxt tərk etməsə də, hər halda, buraya başqa hisslər də əlavə olunur. Yəni indi mən hakimiyyəti ölkə üçün daha yaxşı işlər görmək imkanı kimi qəbul edirəm. Bu gün mənim üçün hakimiyyət, ilk növbədə, Azərbaycan vətəndaşlarından ötrü xeyirxah işlər görmək imkanıdır".

Gördüyümüz kimi, Azərbaycanın böyük tarixi şəxsiyyəti, ümummilli lider Heydər Əliyevin ideyaları XXI əsrdə onun layiqli varisi cənab İlham Əliyev tərəfindən, ulu öndərin yaratdığı Yeni Azərbaycan Partiyası tərəfindən uğurla davam etdirilir. Çünki Heydər Əliyev ideyaları yaşayan və yaşadan ideyalardır.

**"Azərbaycan".-**2009.-15 aprel.-N 79.-S.3.

## SƏMƏRƏLİ İNKİŞAF MODELİNİN BANİSİ

**Arif RƏHİMZADƏ,**
Milli Məclisin Regional məsələlər
komitəsinin sədri,YAP İdarə Heyətinin üzvü

***Sovet İttifaqının dağılması müstəqil dövlətlər qarşısında son dərəcə mürəkkəb bir vəzifə qoydu – dövlətlərin iqtisadi müstəqilliyini təmin edən prinsipcə yeni təsərrüfatçılıq sistemi yaradılmalı idi. 70 il ərzində təşəkkül tapmış və fəaliyyət göstərmiş planlı iqtisadiyyat daha işləyə bilmirdi. Bu problem Sovet İttifaqı məkanında yaranmış bütün müstəqil dövlətlər qarşısında dayanmışdı. Həmin ərəfədə bizim ölkəmiz üçün vəzifə qat-qat mürəkkəb idi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, faktiki başlanmış vətəndaş müharibəsi və separatizm təzahürləri, xaos və iqtisadiyyatın dağılması, dövlət hakimiyyətinin və bütün idarəçilik sisteminin iflic olması elə bir vəziyyətə gətirib çıxarmışdı ki, ilk növbədə dövlətin bütövlüyünü və mövcudluğunu qoruyub saxlamaq tələb olunurdu.***

Heydər Əliyevin dühası, qlobal inkişaf meyillərini irəlicədən görmək, öz ölkəsinin dünya birliyində rolunu, yerini və imkanlarını dəqiq müəyyənləşdirmək qabiliyyəti, çox böyük nüfuzu və insanları öz arxasınca aparmaq bacarığı sayəsində müstəqil Azərbaycanın başı üstünü almış təhlükələr aradan qaldırıldı. Qanunsuz silahlı birləşmələr və quldur dəstələri qısa müddətdə ləğv edildi, ölkənin ordusu yaradıldı. Asayiş və qayda-qanun bərqərar edildi, soyğunçuluğa, vətəndaşların əmlakının qəsb olunması faktlarına son qoyuldu. Qarabağ müharibəsində atəşkəs əldə edildi. Dövlətçilik yenidən yaradıldı, insanların öz qüvvələrinə inamı özlərinə qaytarıldı. İctimai-siyasi vəziyyətin normallaşdırılması iqtisadiyyatda zəruri dəyişiklikləri həyata keçirməyə imkan verdi.

Heydər Əliyevin Azərbaycana ötən əsrin 70-80 – cı illərində rəhbərlik etdiyi dövrdə ölkədə çoxsahəli sənaye kompleksi və yüksək səviyyəli kənd təsərrüfatı yaradılmışdı. Ənənəvi neft hasilatı və emalı ilə yanaşı, neft maşınqayırması, neft kimyası, əlvan metallurgiya, cihazqayırma, elektrotexnika və elektron sahələri, yüngül və yeyinti sənayeləri sürətlə inkişaf etmişdi. Kənd təsərrüfatının səviyyəsinə görə Azərbaycan SSRİ-də qabaqcıl mövqelər tuturdu. Müstəqillik əldə etdikdən sonra ölkə öz iqtisadiyyatını bundan sonra necə inkişaf etdirəcəyi ilə bağlı çox vacib vəzifə ilə qarşılaşdı. Xalqın və ölkə rəhbərliyinin təkidi ilə Heydər Əliyevin parlament sədri seçildiyi və dövlətin müqəddəratı üçün məsuliyyəti bütünlüklə öz öhdəsinə götürdüyü 1993-cü ilin iyun ayında sənayedə və kənd təsərrüfatında, bütövlükdə ölkədə xaos hökm sürürdü. Zavod və fabriklərin avadanlığı xeyli dərəcədə talan edilmiş və oğurlanmışdı. Ölkənin təsdiq edilmiş büdcəsi – dövlətin gəlirlərinin və xərclərinin hansı mənbələrdən gəldiyini və hara xərcləndiyini müəyyənləşdirən əsas maliyyə sənədi yox idi.

Ciddi problemlərdən biri də o idi ki, SSRİ dağıldıqdan sonra iqtisadiyyatın idarə edilməsinin sərt, mərkəzləşdirilmiş, planlı sisteminin mövcudluğuna son qoyulmuşdu. Bu elə sistem idi ki, hər bir müəssisənin maddi-texniki təchizatı və fəaliyyəti nəhəng ölkənin ərazisindəki onlarca müəssisə ilə kooperasiya şəraitində həyata keçirilir, məhsulun satışı mərkəzləşdirilmiş qaydada aparılırdı. Kənd təsərrüfatında da ciddi vəziyyət yaranmışdı. Bu sahənin əsas istehsal vasitəsi olan və rəsmi ideologiyaya görə ümumxalq mülkiyyəti sayılan torpaq əslində heç kəsin deyildi. Bu amil, habelə mövcud tədarük qaydası və əməyin ödənilməsi sistemi sahənin inzibati metodlarla idarə olunmasını labüd edirdi. Həmin metodların imkanları isə, demək olar, tamamilə tükənmişdi.

İqtisadiyyatı bazar mexanizmləri üzərinə keçirməyin zəruri olduğu aydın idi. Məsələ bu şəkildə qoyulurdu – ölkənin mövcud olan bütün iqtisadi potensialını inkişaf etdirmək üçün nədən başlamaq lazımdır? Rəqabət şəraitində real səmərəliliyi nəzərə almaqla hansı sahələrə üstünlük verilməlidir?

Heydər Əliyev dövlətin iqtisadi siyasətini müəyyən etdi. Həmin siyasətin məğzi bu idi: hökumət bütün sahələrin, zavodların, fabriklərin və müəssisələrin işləməsi üçün lazımi şərait (səhmləşdirmə, özəlləşdirmə, vergi güzəştləri və başqa güzəştlər) yaradır; iqtisadiyyatın ölkə üçün daha əhəmiyyətli sahələrinə dövlət tərəfindən hər cür yardım göstərilir.

Azərbaycanın sonrakı inkişafını müəyyənləşdirən ilk və ən sanballı layihə ölkəmizin Xəzər dənizindəki neft yataqlarının işlənilməsi barədə Heydər Əliyevin 1994-cü ildə imzaladığı "Əsrin müqaviləsi" oldu. Sonralar karbohidrogenlərin çıxarılmasına və daşınmasına dair başqa sazişlər də imzalandı. Lakin ilk müqavilənin xüsusi əhəmiyyəti vardı.

Əvvəla, dünyaya elan edildi ki, siyasətdə diletantların dövranına artıq son qoyulub və Azərbaycan öz rəhbərinin simasında regionun bütün ölkələrinin hesablaşdıqları dünya miqyaslı dövlət xadimi seçib. 1994-cü ilin sentyabrında neft müqaviləsinin imzalanması ərəfəsində mövcud olan şəraiti yada salaq. Azərbaycanda mürəkkəb ictimai-siyasi vəziyyət hələ də qalmaqda idi. Qonşu dövlətlərin, demək olar, hamısı respublikamıza

qarşı ciddi iddialara malik idilər və dənizdəki neft yataqlarımızın işlənilməsinə yönələn hərəkətlərimizi çox ağrılı qarşılayırdılar. İş o yerə çatmışdı ki, birbaşa hədələr də səsləndirilirdi. Rusiya Federasiyası xarici işlər nazirinin müavini mətbuat səhifələrində iddia edirdi ki, Xəzər dənizində dövlətlərin sektorları müəyyən edilmədiyindən onun ölkəsi Azərbaycanın özününkü saydığı istənilən neft yatağının işlənilməsinə başlaya bilər. Nə olacaq, Azərbaycan Rusiyaya qarşı müharibəyəmi başlayacaq? – deyə o sual verirdi. Lakin Heydər Əliyevin siyasi vəziyyəti dəqiq qiymətləndirməsi, iddialı ölkələrin sonrakı addımlarını qabaqcadan görməsi, habelə şəxsi mərdliyi sayəsində “Əsrin müqaviləsi” imzalandı.

İkincisi, dövlət başçısının niyyəti belə idi ki, ilk neft müqaviləsindən sonra dünyada Azərbaycana maraq xeyli artacaq, Azərbaycan yataqlarının işlənilməsinə dair digər sazişlər bağlanacaq; neft-qaz sahəsi iqtisadiyyatın başqa sahələrini də çəkib öz ardınca aparan lokomotiv olacaq və Azərbaycanı inkişaf etmiş, çiçəklənən ölkəyə çevirəcəkdir.

Bu proqnozların düzgünlüyü parlaq şəkildə təsdiqləndi. Neft sənayesinə, habelə iqtisadiyyatın digər sahələrinə onlarca milyard dollar sərmayə qoyuldu. Neft hasilatı və nəqli ilə yanaşı, ölkədə nəqliyyat sektoru, güclü tikinti kompleksi, xalq istehlakı malları istehsalı və yeyinti sənayesi, xidmətlər sahəsi formalaşdı.

Kənd təsərrüfatında əsaslı islahatlar aparıldı: kolxoz və sovxozların torpağı və əmlakı vətəndaşların mülkiyyətinə verildi, yüzlərcə fermer təsərrüfatı yaradıldı. Kənd əməkçiləri üçün bu gün də qüvvədə olan vergi tətilləri təşkil edildi: onlar torpaq vergisi istisna olmaqla, vergilərin bütün növlərindən azaddırlar.

2003-cü ildə cənab İlham Əliyev Azərbaycan Prezidenti seçildikdən sonra ölkənin inkişafında yeni mərhələ başlandı. Artan iqtisadi potensial və büdcə imkanları, dövlət bölmələrinin dəqiq fəaliyyəti, işçilərin ixtisas səviyyəsinin yüksəlməsi idarəçilikdə yeni ideya və yanaşmaların tətbiqinə, iqtisadiyyatın üstün istiqamətlərində dövlət təsirini gücləndirməyə imkan verdi.

Müstəqillik əldə edilənədək iqtisadiyyatın və sosial sahənin inkişafını müəyyənləşdirən əsas sənəd dövlət planları idi. Dövlət planlarının həddindən artıq təfsilatlı və iri həcmli olması onların bazar iqtisadiyyatı şəraitində perspektivsiz olması fikrini doğurmuşdu. Amma istənilən böyük layihə uzun müddət ərzində reallaşdırılır, nəhəng kapital qoyuluşunu, problemin kompleks halda nəzərdən keçirilməsini və sairə tələb edir. 2004-cü ildən etibarən belə bir qayda qoyuldu ki, dövlət büdcəsi ilə birlikdə respublikanın qarşıdakı üç ildə iqtisadi və sosial inkişafı konsepsiyası da təsdiq edilsin. Bir neçə il ərzində həyata keçirilən, iqtisadiyyat və sosial həyat sahələrinin inkişaf parametrlərini müəyyənləşdirən, dövlətin resurslarını və özəl kapitalı üstün istiqamətlərdə cəmləşdirməyə imkan verən dövlət proqramları hökumətin və bütövlükdə icra orqanlarının fəaliyyətində mühüm yer tutur.

Regionların sosial-iqtisadi inkişafına, elektroenergetikanın, yol şəbəkəsinin, digər nəqliyyat kommunikasiyalarının, informasiya-kommunikasiya texnologiyaları sahəsinin, neft-kimya kompleksinin, metallurgiya sahəsinin, kiçik biznesin inkişafına dair dövlət proqramları qəbul edilmişdir və bunlar uğurla yerinə yetirilir. Orta təhsilin inkişafı, məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, orta pillə kadrlarının hazırlanması proqramları reallaşdırılır.

Azərbaycan həmişə əhalisinin yüksək intellektual səviyyəsi və təhsili ilə seçilmişdir. Neft maşınqayırması, geologiya, kimya və digər sahələrdə ölkənin güclü layihə və tədqiqat potensialı vardır. Azərbaycan Prezidentinin siyasəti bu potensialı qoruyub artırmaqdan, cənab İlham Əliyevin dediyi kimi, maddi kapitalı insan kapitalına, intellektual kapitala çevirməkdən ibarətdir. Xarici ölkələrdə ən yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına dair qəbul olunmuş proqram bu siyasətin tərkib hissəsidir. intellektual potensialın qorunması və inkişaf etdirilməsi baxımından Azərbaycanın ölkə hüdudlarından kənarda fəaliyyət göstərən hüquqi və fiziki şəxsləri üçün neft-qaz sahəsində xüsusi güzəştli rejimin yaradılması da bu siyasətin tərkib hissəsidir.

Kənd təsərrüfatının inkişafı və əhalinin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi üçün çox iş görülür. Kənd əmtəə istehsalçılarının yanacaq-sürtgü materiallarına və mineral gübrələrə çəkdikləri xərclərin, habelə buğda istehsalı ilə bağlı xərclərinin xeyli hissəsi dövlət büdcəsi hesabına kompensasiya edilir, fermer təsərrüfatının və kənd təsərrüfatı məhsullarının emalı sahəsinin inkişafına güzəştli kreditlər ayrılır. Kənd təsərrüfatı maşınlarının və avadanlığının lizinqi getdikcə daha çox inkişaf edir, fermer təsərrüfatlarının güzəştli şərtlərlə məhsuldar mal-qara ilə təminatı sahmana salınır. Sahənin müvafiq infrastrukturu yaradılır.

Görülmüş işlər kənd təsərrüfatı məhsullarının bir çox növlərinin istehsalının artmasına, kəndlilərin rifah halının yüksəlməsinə şərait yaratmışdır. Sahə respublika əhalisinin tələbatını tam təmin etməyə və mühüm ixrac sferasına çevrilməyə qadirdir. Bununla birlikdə, hələ də ölkəyə xeyli miqdarda taxıl, ət-süd məhsulları, bitki yağları və digər ərzaq malları idxal olunur. Problemin həlli təsərrüfatların geniş kooperasiyasını, onların iriləşdirilməsini, mütərəqqi istehsal texnologiyalarının tətbiqini, texniki xidmət, məhsulun tədarükü, saxlanması,

emalı və istehlakçıya çatdırılması üçün lazımi infrastrukturun yaradılmasını nəzərdə tutur. Respublikanın müvafiq strukturlarının fəaliyyəti buna yönəldilmişdir.

Ölkə iqtisadiyyatının bazar iş prinsipləri üzərinə keçirilməsi, istehsal sahələrinin və sferalarının inkişafının proqram-məqsədli metodlarının tətbiqi, yenidən strukturlaşdırma, üstün hədəflərin müəyyənləşdirilməsi və maddi resursların onlarda cəmləşdirilməsi yüksək iqtisadi göstəricilərə nail olmağa, xalqın rifah halını yaxşılaşdırmağa imkan vermişdir. Təkcə son beş il ərzində ümumi məhsulun həcmi 2,6 dəfə, o cümlədən qeyri-neft sektorunda 1,8 dəfə artmışdır. Artıq neçə ildir ki, Azərbaycan iqtisadiyyatın inkişafına görə regionda, bir sıra göstəricilərə görə isə dünya miqyasında lider mövqelər tutur. Ötən il Dünya Bankı ölkəmizi biznes mühitində islahat aparılmasında və onun səmərəli olmasında lider hesab etmişdir. Beş il ərzində ümumi daxili məhsul 2,6 dəfə artmış, Azərbaycan kapital ixrac edən ölkəyə çevrilmişdir. Büdcə xərcləri 7,5 dəfə çoxalmışdır. Demək olar, bütün kateqoriyalardan olan insanları əhatə edən əməkhaqları, pensiyalar, təqaüdlər, müavinətlər, digər ödənclər müntəzəm artır. 2003-2008 – ci illərdə yoxsulluq səviyyəsi 49,5 faizdən 13,2 faizədək azalmışdır. Dünya maliyyə böhranı şəraitində də Azərbaycan iqtisadiyyatı heyrətamiz sabitliyini qoruyub saxlayır.

Heydər Əliyevin 10 il ərzində əsasını qoyduğu iqtisadi siyasəti onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla həyata keçirir.

**“Azərbaycan“**.-2009.-22 aprel.-№85.-S.3

# MÜKƏMMƏL QANUNVERİCİLİK SİSTEMİNİN BANİSİ

**Adil VƏLİYEV,**
Milli Məclis Aparatının baş məsləhətçisi,
dövlət qulluğunun baş müşaviri,
siyasi elmlər namizədi

***Bəşəriyyətin çoxəsrlik tarixi təcrübəsi göstərmişdir ki, xalqların və dövlətlərin inkişafında liderlərin çox böyük rolu olmuşdur. Güclü lideri olan dövlətlər və millətlər çox yüksək inkişaf yolu keçmiş və tarixi uğurlar əldə etmişlər. Belə liderlər bizim xalqın tarixində də yetişmiş, Azərbaycanımızın inkişafında, dövlətçiliyimizin yaranıb möhkəmlənməsində, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında əhəmiyyətli rol oynamışlar. Onların arasında öz işıqlı əməlləri ilə xalqı müstəqilliyə qovuşdurmuş, dövlətçiliyimizin daha da möhkəmlənməsində mühüm xidmətləri olmuş ümummilli lider Heydər Əliyevin adı qürur hissi ilə çəkilir. Azərbaycanın tarixi şəxsiyyətlərinin fövqündə yer alan bu dahi insanın xalqımız qarşısındakı xidmətləri ölçüyəgəlməzdir. Azərbaycan dövlətinin, müstəqilliyinin mövcudluğu üçün xalqımız məhz ümummilli lider Heydər Əliyevə borcludur.***

Otuz ildən artıq bir müddətdə Azərbaycan dövlətçiliyinin taleyi dahi və uzaqgörən şəxsiyyət, öz xalqını və vətənini canından artıq sevən ən böyük azərbaycanlı, şərəfli adı bizim üçün həmişə əziz və unudulmaz olan Heydər Əliyevlə bağlı olmuşdur. Bu illər xalqımızın milli mənlik şüurunun oyanışı, azadlıq və müstəqillik hissinin güclənməsi, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatının vüsətli dirçəlişi ilə əlamətdar olmuşdur. Bütün həyatını və siyasi fəaliyyətini böyük tarixi keçmişi və zəngin mədəniyyəti ilə fəxr etdiyi xalqının və vətəninin tərəqqisinə həsr etmiş Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxaraq ölçüyəgəlməz irəliləyişə nail olmuşdur. Çoxəsrlik dövlətçilik tariximizdə müstəsna yeri olan ümummilli liderimizin fəaliyyəti təkcə Azərbaycan üçün deyil, həm də postsovet məkanı üçün mühüm əhəmiyyət daşımaqla yanaşı, dünya miqyasında gedən proseslərə də birbaşa təsir göstərmişdir.

1969-cu ilin iyulunda Heydər Əliyevin respublika rəhbəri seçilməsi ilə Azərbaycanın taleyində və tarixində dönüş başlandı. Xalqımızın mənəvi-əxlaqi dəyərlərinə söykənən genişmiqyaslı tədbirlərin həyata keçirilməsi insanlarda nəinki milli ruhun və özünüdərkin oyanışını şərtləndirdi, həmçinin onların ictimai fəallığının və işgüzarlığının yüksəlməsinə təkan verdi. Milli qürur hissinin güclənməsi, milli şüurun yüksəlməsi sosial-iqtisadi və mədəni həyatın bütün sahələrinin dirçəlişi üçün zəmin oldu. Bu, xalq ruhuna dərindən bələd olan respublika rəhbərinin təşəbbüskarlığının və uzaqgörənliyinin nəticəsi idi.

Tarixi hadisələrin sonrakı gedişi də sübut etdi ki, Heydər Əliyevin 1969-1982-ci illərdə gördüyü işlər gələcəkdə milli dövlətçilik ideyalarının hərəkətverici qüvvəyə çevrilməsi və cəmiyyətin bu ideya ətrafında səfərbər olması üçün şərait yaratdı. Həmin dövrdə respublikada bərqərar edilən əsl işgüzarlıq mühiti, sosial ədalətə əsaslanan sağlam mənəvi-psixoloji ab-hava iqtisadi tərəqqinin yüksək həddə çatmasına, Azərbaycanın keçmiş ittifaq miqyasında nüfuz qazanmasına, hətta beynəlxalq səviyyədə tanınmasına imkan verdi. Azərbaycanın indiki siyasi və iqtisadi müstəqilliyi, beynəlxalq münasibətlər sisteminə və dünya iqtisadiyyatına inteqrasiyası hələ 1970-1980-ci illərdə təməli Heydər Əliyev tərəfindən qoyulmuş potensiala əsaslanır.

XX-XXI əsrlərin qovuşuğunda Azərbaycanın demokratik və bəşəri dəyərlərlə sadiq müstəqil bir dövlət kimi formalaşması böyük öndərimizin titanik siyasi fəaliyyətinin nəticəsi, 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə onun yenidən hakimiyyətə qayıdışının bəhrəsidir. Heydər Əliyev Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, xalqın birliyinin təmin olunmasını, ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş üçün zəmin yaradılmasını özünün dövlətçilik strategiyasının prioritet istiqaməti kimi müəyyənləşdirdi.

Müstəqillik əldə etdikdən sonra insan hüquq və azadlıqlarının qorunması məqsədilə həyata keçirilən hüquqi islahatlar içərisində ən mühümü məhz yaşamaq hüququnun təmini istiqamətində həyata keçirilən tədbirlər planı olmuşdur. 1993-cü ildə Heydər Əliyevin ilk qərarlarından biri məhz ölüm cəzasının tətbiqi üzərində moratorium qoyulması oldu. Demokratik hüquqi dövlət quruculuğu yolunu tutmuş Azərbaycan xalqı müstəqillik əldə etdikdən sonra bir çox çətinliklərlə qarşılaşmışdı. O dövrdə ölkəmizdə hökm sürən hərc-mərclik, özbaşınalıq, qanunsuz silahlı birləşmələrin mövcudluğu, cinayətkarlığın tüğyan etməsi, insanların dinc və təhlükəsiz yaşamasını qəsdə məruz qoymuşdu. Ulu öndərimizin həyata keçirdiyi siyasət nəticəsində dövlətçiliyimiz möhkəmləndirildi, ictimai-siyasi sabitlik bərqərar edildi, qanunsuzluqlara, zorakılığa, cəzasızlıq əhval-ruhiyyəsinə son qoyuldu. Vətəndaşlarımız təhlükəsiz yaşamaq hüququ əldə etdilər. Bütün bunlar demokratik cəmiyyətin qurulmasına, insanların hüquq və azadlıqlarının müdafiəsinə təminat verdi.

1995-ci il noyabrın 12-də Azərbaycanın tarixində ilk dəfə olaraq müstəqil dövlətimizin Konstitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin əsas müddəalarını

özündə əks etdirən Konstitusiyada insan və vətəndaş hüquqlarının, azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan olundu. Çoxəsrlik dövlətçilik ənənələrimizə, milli və ümumbəşəri dəyərlərə söykənərək yaradılan Konstitusiyamız hüquqi-demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini qoydu. Qeyd olunduğu kimi, 1993-cü ilin iyun ayından ölkəmizdə ölüm cəzasının icrasına moratorium qoyulmuş, daha sonra ölüm cəzasının tətbiqi məhdudlaşdırılmış və 1998-ci il fevralın 10-da Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm cəzası ləğv edilmişdir. Bu tarixi addım fəlsəfi, hüquqi düşüncələrə, dərin elmi təhlilə, dünya təcrübəsinə və reallığa əsaslanmaqla humanizm, insanpərvərlik, ədalət, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan ulu öndərin gələcək nəsillərə misilsiz töhfəsi oldu. Dövlət başçısının 3 fevral 1998-ci il tarixli müraciətində deyilirdi: *"Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm".* Ölüm cəzasının ləğvi Azərbaycanın hüquqi-demokratik dövlət quruculuğu yolunda olduğunu bir daha sübut etdi.

Həmin dövrdə həlli vacib olan məsələlərdən biri davam etməkdə olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin gedişinə təsir göstərə biləcək qəti addımlar atılması idi. Bunsuz ölkənin ərazi bütövlüyünü qorumaq, daxili ictimai sabitliyə nail olmaq mümkün deyildi. Milli Ordunun döyüş qabiliyyətinin artırılması və genişmiqyaslı müdafiə tədbirlərinin həyata keçirilməsi, döyüşçülərdə yaranan ruh yüksəkliyi sayəsində düşmənə qarşı bir neçə uğurlu hərbi əməliyyat aparıldı. Belə şəraitdə beynəlxalq qüvvələrin təsiri altında münaqişə tərəfləri atəşi dayandırmaq barədə razılığa gəldilər. Bu barədə saziş 1994-cü ilin mayında imzalandı və münaqişənin dinc vasitələrlə aradan qaldırılmasına prioritet istiqamət seçildi. Ötən on beş ildə bu istiqamətdə göstərilən səylər konkret nəticə verməsə də, atəşkəs rejimi Azərbaycanın müstəqil dövlət kimi yaşamasını və sonrakı inkişafını şərtləndirən amillərdən biri olmuşdur.

Heydər Əliyevin ölkə iqtisadiyyatında köklü dəyişikliyə gətirib çıxaran və müstəqil dövlətimizə beynəlxalq nüfuz qazandıran yeni neft strategiyasının həyata keçirilməsinə məhz atəşkəsdən sonra başlanıldı və 1994-cü ilin sentyabrında dünyanın iri neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsi imzalandı.

Lakin müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsi, sosial-iqtisadi inkişafın bünövrəsinin qoyulması Azərbaycanı yenidən anarxiya və başıpozuqluq girdabına salaraq bundan öz mənfəətləri naminə istifadə etmək istəyən daxili və xarici qüvvələrin ciddi müqaviməti ilə üzləşdi. 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişinə silahlı cəhdlər göstərilməsi müstəqil dövlətçiliyimiz üçün növbəti sınaqlar oldu. Ümummilli lider Heydər Əliyevin qətiyyəti, xalqın öz qüdrətli liderini qızğın şəkildə dəstəkləməsi nəticəsində bu təhlükəli cəhdlərin qarşısı alındı, ölkədə hakimiyyəti zor və silah gücünə ələ keçirmək ənənəsinə birdəfəlik son qoyuldu. 1993-1995-ci illər müasir Azərbaycanın tarixinə dövlət müstəqilliyinin qorunub saxlanılması uğrunda mübarizə dövrü kimi yazılmışdır. İctimai-siyasi sabitliyin və qanunçuluğun bərqərar edilməsi bu dövrün ən mühüm nailiyyəti oldu və ümummilli liderimizə dövlət quruculuğunda, iqtisadi, sosial və mədəni həyatda böyük işlərə başlamaq, genişmiqyaslı və ardıcıl islahatlar aparmaq üçün əlverişli imkan yaratdı.

Böyük öndərimiz əmin idi ki, demokratik dəyərlərin üstünlüyünü qəbul edən, azadlığın, haqq və ədalətin bərqərar olunduğu dövlət qurmaq istəyən hər bir ölkə, hər bir xalq üçün Konstitusiya birinci dərəcəli əhəmiyyət daşıyır. Siyasi, iqtisadi, hüquqi sistemin köklü şəkildə dəyişdiyi, cəmiyyətdə keçid dövrünün başlandığı bir vaxtda Konstitusiyanın – Əsas Qanunun rolu qat-qat artır.

Bu bir həqiqətdir ki, müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul olunması ilə Azərbaycanın tarixi inkişafının yeni bir mərhələsi başlandı. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanmış ümumxalq müzakirəsinə çıxarılan Konstitusiya layihəsi 1995-ci il noyabrın 12-də keçirilən referendumda – ümumxalq səsverməsində qəbul edilmişdir. Bu mühüm tarixi əhəmiyyətə malik sənəd ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun möhkəm təməlini təşkil edir. Azərbaycan Respublikasının Konstitusiyasında yüz illər boyu bəşəriyyətin əldə etdiyi mütərəqqi dəyərlər, fundamental hüquq və azadlıqlar öz əksini tapmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə islahatların hüquqi bazasının yaradılması, insan hüquq və azadlıqlarının qorunması sahəsində mühüm sənədlər qəbul edilmiş, respublikamız müxtəlif beynəlxalq konvensiya və sazişlərə qoşulmuş, qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədi ilə xeyli tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər sırasında Heydər Əliyevin 21 fevral 1996-cı il tarixli sərəncamı ilə yaradılmış Hüquq İslahatları Komissiyasını xüsusi qeyd etmək lazımdır. Bu komissiya xalqımızın dövlətçilik tarixində yaratdığı ənənələri qorumaqla inkişaf etmiş dövlətlərin hüquq islahatları ilə bağlı təcrübəsindən də bəhrələnmişdir. Komissiyanın 4 may 1996-cı ildə keçirilmiş iclasında ümummilli liderimiz Heydər Əliyev demişdir: *"Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının həyata keçirilməsi prosesi hər birimizin əsas vəzifələrindən biridir. Bu baxımdan məhkəmə, hüquq-mühafizə*

*orqanlarının islahatı ilə əlaqədar qanunların hazırlanması, qəbul olunması çox mühüm əhəmiyyət kəsb edir. İndi qarşımızda Konstitusiya əsasında qanunların qəbul olunması kimi çox böyük vəzifələr yar. Hər sahədə qanunlar qəbul edilməlidir. İndi mən vaxt deyə bilmərəm, – bir il, iki il, – hər halda müəyyən bir zaman ərzində nail olmalıyıq ki, bütün sahələr üzrə müstəqil Azərbaycan dövlətinin qanunları olsun".* Heydər Əliyevin Hüquq İslahatları Komissiyasındakı bu nitqi respublikamızda qanun yaradıcılığı sahəsində həyata keçirilən böyük işlərin proqram sənədi kimi mühüm əhəmiyyətə malikdir.

Hüquq islahatları sahəsində çox əhəmiyyətli sənədlərdən biri də Heydər Əliyevin 1996-cı il iyunun 8-də imzaladığı "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi haqqında" sərəncamdır. Bu sənədə əsasən beynəlxalq standartlara uyğun "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında" qanun və digər hüquqi sənədlərin layihələri hazırlanıb Milli Məclisdə müzakirə edilmiş və müvafiq qaydada qəbul olunmuşdur. Milli Məclisin bu günə qədər qəbul etdiyi hüquqi sənədlərin böyük bir hissəsi Heydər Əliyev tərəfindən parlamentin müzakirəsinə verilmiş qanun layihələri, konvensiyalar və sazişlərdir. Respublika parlamenti son on üç il ərzində bu istiqamətdə, yəni hüquq islahatları sahəsində xeyli tarixi sənədlər qəbul etmişdir.

Böyük öndərimizin 22 fevral 1998-ci il tarixli "İnsan və vətəndaş hüquqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmanı da hüquq islahatları baxımından mühüm əhəmiyyət kəsb edən tarixi sənədlərdəndir. Bu fərmanda ölkəmizdə insan hüquq və azadlıqlarının cəmiyyətimizdə əsas meyar olduğu xüsusilə vurğulanmış, icra strukturlarının vəzifələri müəyyən edilmişdir. Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclisdə ölkəmizin Avropa xalqları ailəsi ilə inteqrasiyasını gücləndirən normativ sənədlər də qəbul olunmuşdur. Parlament bu sahədə "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyanı, "İşgəncələrin və qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında" Avropa Konvensiyasını, "Yerli özünüidarəetmə haqqında" Avropa Xartiyasını təsdiq edən sənədləri, "Vətəndaşlıq haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında", "Dini etiqad azadlığı haqqında" qanunları qəbul etmişdir.

Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması hüquq islahatları baxımından respublikamız qarşısında mühüm öhdəlik və vəzifələr qoymuşdu. Bu vəzifələrin yerinə yetirilməsi sahəsində ölkəmizdə bir sıra tədbirlər həyata keçirilmiş, ölkə başçısının təşəbbüsü ilə Milli Məclisdə dövlət qulluğunu tənzimləyən bir sıra qanunvericilik aktları da qəbul edilmişdir.

Hüquq islahatları sahəsində Milli Məclis Heydər Əliyevin təşəbbüsü ilə bir neçə Konstitusiya qanunu da qəbul etmişdir. Bunlar "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında", "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında", "Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Konstitusiya qanunlarından ibarətdir. Bütün bu sənədlər ölkəmizdə insan hüquq və azadlıqlarının qorunmasına necə böyük əhəmiyyət verildiyinin əyani təsdiqidir.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası 1995-ci ildə ümumxalq referendumu ilə qəbul olunduqdan bir müddət sonra – 2002-ci ildə ölkəmizin həmin dövrdəki inkişaf səviyyəsinə və perspektivlərinə uyğun olaraq keçirilmiş referendumda bir sıra mühüm məsələlər öz həllini tapmışdı, o cümlədən seçki prosesi ilə bağlı proporsional seçki sistemi ləğv olunmuş, mojaritar seçki sisteminə keçirilmişdi. Ümummilli liderimiz qanunvericiliyin təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının qorunmasının daha etibarlı təmin edilməsi məqsədilə 22 iyun 2002-ci il tarixli fərmanla Konstitusiyada dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Referendum aktı layihəsini ümumxalq səsverməsinə çıxardı. Fərmanda göstərilirdi ki, bu addım respublikamızın "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulmasından, ölkəmizdə məhkəmə islahatlarının həyata keçirilməsindən, Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyətinin və seçki sisteminin təkmilləşdirilməsi ilə əlaqədar yeni müddəaların Azərbaycan Respublikasının Konstitusiyasında əks etdirilməsi zərurətindən irəli gəlir. Referendumun keçirilməsi insan hüquq və azadlıqlarının qorunmasını daha da gücləndirdi, vətəndaşlara məhkəmələrə, Ombudsmana, Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək hüququ verdi, ölkənin seçki sistemini daha da təkmilləşdirdi. Milli Məclisdə referendumun nəticələrindən irəli gələn müxtəlif qanun layihələri də hazırlandı.

Ölkədə siyasi, iqtisadi, sosial və hüquq islahatlarını qanunvericilik mexanizminin yaradılmasına və təkmilləşdirilməsinə yönəldilmiş yüzlərlə qanun layihəsi Heydər Əliyevin imzası ilə parlamentə təqdim edilmiş və qəbul olunmuşdur. Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclisin qəbul etdiyi qanunvericilik aktları, o cümlədən Mülki Məcəllə, Mülki-Prosessual Məcəllə, İnzibati Xətalar Məcəlləsi, Cinayət Məcəlləsi, Cinayət-Prosessual Məcəllə, Cəzaların İcrası Məcəlləsi, "Torpaq islahatı haqqında", "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Azərbaycan Respublikasının insan

hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" və digər qanunlar Azərbaycanın demokratik yolla ardıcıl inkişafı üçün bütün hüquqi təminatları yaratmışdır.

Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklər edilməsi ilə bağlı 2009-cu il martın 18-də təyin edilmiş referendum aktı da tamamilə təbii və məntiqə uyğun olub, ölkədə həyata keçirilən hərtərəfli islahatların mahiyyətindən irəli gəlir. Azərbaycan bu gün sosial-iqtisadi, siyasi-hüquqi və mədəni inkişafının elə yüksək mərhələsindədir ki, əldə olunmuş fundamental nəticələr cəmiyyətin hüquq sisteminin əsasını təşkil edən Konstitusiyada demokratik xarakterli bir sıra əlavə və dəyişiklikləri sosial sifarişə çevirir. 2009-cu il 18 mart tarixində əhalinin böyük əksəriyyətinin dəstəklədiyi Referendum aktında əksini tapmış Konstitusiyaya əlavə və dəyişikliklər mahiyyət etibarilə Azərbaycanın çağdaş inkişaf dinamikası, cəmiyyətin şüur səviyyəsi, çağdaş modernləşmə strategiyasının tələbləri ilə uzlaşır. "Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklər edilməsi haqqında" Referendum Aktı layihəsinin ümumxalq səsverməsi demokratik inkişaf istiqamətində mühüm addım olmaqla, respublikanın sivil, demokratik dəyərlərə sadiqliyini bir daha təsdiqləmişdir. Referendum Aktı layihəsində nəzərdə tutulan əlavə və dəyişikliklərin mütərəqqi xarakter daşıdığı, beynəlxalq hüquq normalarına tamamilə uyğun olduğu, insan və vətəndaş hüquq və azadlıqlarının təminatına yönəldiyi qabarıq görünür. Konstitusiyanın 29 maddəsinə təklif olunan 41 əlavə və dəyişikliyin böyük qismi sırf insan hüquq və azadlıqları ilə bağlı olub, bu sahədə daha səmərəli təminat mexanizmləri formalaşdırmaq məqsədi daşıyır. Həmin dəyişikliklər aktuallığı və əhəmiyyəti ilə diqqəti cəlb edir.

İnsan və vətəndaş hüquq və azadlıqlarının daha da genişləndirilməsi, bu hüquq və azadlıqların təminatı üçün dövlətin üzərinə əlavə vəzifələrin qoyulması Konstitusiyaya edilmiş əlavə və dəyişikliklərin əsas iki səciyyəvi cəhətləridir. Bütövlükdə, Konstitusiya islahatları ölkəmizdə insan hüquqlarına dair beynəlxalq normaların da maneəsiz tətbiqinə imkan verməklə, dünya birliyində daha layiqli yer tutmağımıza imkan yaratmaqdadır. Ölkəmizdə müasir dövlət quruculuğunun həyata keçirilməsinin, bəşəri-demokratik dəyərlərə uyğun dövlətçilik təsisatları və cəmiyyət modeli formalaşdırılmasının hüquqi əsasları yarandıqdan sonra Azərbaycanın müstəqilliyi möhkəmləndirilərək əbədi və dönməz xarakter almışdır.

Məhz 1995-2003-cü illər Azərbaycanın demokratik prinsiplərə sadiq bir dövlət kimi inkişafında mühüm bir dövr olmaqla dünya birliyinə inteqrasiya yolunda ona çox böyük nailiyyətlər qazandırdı. Heydər Əliyevin siyasi müdrikliyi və uzaqgörənliyi, gərgin zəhməti və təşəbbüskarlığı, yaradıcı dühası və beynəlxalq nüfuzu olmadan bütün bunları əldə etmək mümkünsüz idi.

Bu illərdə Konstitusiyada təsbit olunmuş hakimiyyət bölgüsü prinsipinə uyğun dövlət idarəetmə sistemi formalaşmış, icra, qanunvericilik və məhkəmə orqanlarının səmərəli fəaliyyəti təmin edilmişdir. Ölkəmizdə müxtəlif yönlü siyasi partiyaların, ictimai təşkilatların, həmçinin, kütləvi informasiya vasitələrinin azad fəaliyyəti üçün yaradılmış şərait memarı və qurucusu Heydər Əliyev olan müstəqil dövlətimizdə siyasi plüralizmin, fikir azadlığının, demokratiyanın bərqərar olduğunu bariz şəkildə təsdiqləyir. Ümummilli lider vicdan azadlığının təmin edilməsini, tolerantlıq mühitinin formalaşmasını əsl vətəndaş cəmiyyətinin formalaşdırılması üçün mühüm amil sayırdı və respublikaya rəhbərliyi dövründə bu amilləri dövlət həyatının ayrılmaz hissəsinə çevirmişdi. Heydər Əliyevin bilavasitə təşkilatçılığı və rəhbərliyi ilə ölkəmizin məhkəmə-hüquq sistemi beynəlxalq standartlara uyğun şəkildə yenidən qurulmuşdur. Bu sahədə aparılan islahatlar hüquqi dövlət quruculuğunun uğurla həyata keçirilməsi, ölkəmizdə insan hüquqlarının təmin edilməsi və qorunması üçün böyük əhəmiyyət kəsb etmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə ölkədə siyasi, iqtisadi, sosial islahatların həyata keçirilməsi, dövlətimizin beynəlxalq birliyə tamhüquqlu üzv kimi qəbul olunması üçün müvafiq hüquqi bazanın yaradılması istiqamətində mühüm addımlar atılmışdır. Belə ki, Milli Məclisin qəbul etdiyi qanunvericilik aktlarının, o cümlədən "Vətəndaşlıq haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Məlumat azadlığı haqqında", "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında", "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və digər qanunların əsas ruhu insan hüquqlarının müdafiəsi təminatlarının yaradılması olmuşdur.

Bunlar bir tərəfdən Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunun təmin edilməsi, çoxpartiyalılığa, müxtəlif siyasi cərəyanların ideyalarının azad ifadə olunmasına əsaslanan siyasi sistemin yaradılması, insan və vətəndaş hüquqlarının qorunmasına qulluq edən təsisatların formalaşması, digər tərəfdən isə, ölkəmizdə azad rəqabətə, inkişaf etmiş mülki dövriyyəyə, müasir bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın qurulması məqsədini güdən qanunvericilik tədbirlərini əhatə etmişdir.

Heydər Əliyevin həyata keçirdiyi dövlət siyasətinin mahiyyətini özündə əks etdirən humanistlik nəticəsində 1995-ci ildən əfv və amnistiya təsisatları bərpa edilmiş, hə-min vaxtdan ölkəmizdə qəbul olunmuş amnistiya aktları və əfv fərmanları on minlərlə şəxsə tətbiq edilmişdir. Heydər Əliyev hər kəsin hüquqlarına

hörmətlə yanaşılmasını, şəxsiyyətin alçaldılması, zorakılıq, işgəncə və bu kimi qeyri-qanuni üsul və vasitələrə yol verilməsi hallarının aradan qaldırılmasını hüquq-mühafizə orqanları qarşısında vacib vəzifə kimi qoymuşdur.

Ümummilli liderimizin gərgin diplomatik səyləri və şəxsi nüfuzu sayəsində müstəqil respublikamız bir sıra nüfuzlu beynəlxalq təşkilatlara, o cümlədən Avropa Şurasına tamhüquqlu üzv qəbul edilmiş və öz beynəlxalq mövqeyini möhkəmləndirmişdir. Heydər Əliyevin xarici siyasəti dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu əsaslar üzərində faydalı əlaqələr qurmağa yönəlmişdi. Bu siyasət indi də möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, qələbələrlə zəngin və diqqətəlayiq bəhrələrini verir.

Məlumdur ki, sülh və əmin-amanlıq olmadan insan hüquqlarına tam riayət olunması mümkün deyil. Ermənistanın Azərbaycana qarşı on səkkiz ildən artıq davam edən silahlı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal olunmuş, 1 milyondan artıq soydaşımız insan hüquqlarından məhrum edilmişdir. Azərbaycan dövləti ərazi bütövlüyünün, qaçqınların və məcburi köçkünlərin pozulmuş hüquqlarının tam bərpası üçün sülhsevər siyasət apararaq atəşkəsə nail olmuş, münaqişənin həlli üçün ATƏT-in Minsk qrupu çərçivəsində və digər beynəlxalq təşkilatlar xətti ilə ardıcıl və məqsədyönlü iş aparır. Heydər Əliyev keçirdiyi bütün beynəlxalq görüşlərində Dağlıq Qarabağ problemini ön plana çəkmişdir.

Müstəqil Azərbaycanın ilk Konstitusiyasının banisi olan Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır. Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının ölkəmizə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibəti əsaslı surətdə dəyişmişdir. Heydər Əliyev siyasətinin əsasını sülh, beynəlxalq hüquq normaları, dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığına hörmət və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri təşkil edir. Heydər Əliyevin Azərbaycan Respublikasının hərtərəfli inkişafı üçün hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi və gücləndirilməsi işinə xidmət edəcəkdir.

Bu gün Azərbaycan dövlətçiliyinin ən mühüm problemi ölkənin ərazi bütövlüyünün təmin olunmasıdır. Ermənistan Respublikasının təcavüzü nəticəsində işğal altına düşmüş ərazilərimizin azad edilməsi, viran qoyulmuş kənd, rayon və şəhərlərimizin bərpa olunması, sayı bir milyona çatan və uzun müddətdən bəri məşəqqətli köçkün həyatı sürən soydaşlarımızın doğma yurd-yuvalarına qayıtması Azərbaycan dövlətinin qarşısında çox məsul bir vəzifə, ən vacib məqsəd kimi durur. Müstəqil dövlətçiliyimizin banisi, müasir Azərbaycanın memarı, böyük öndərimiz Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən möhtərəm Prezident İlham Əliyev xalqımıza hədsiz məhrumiyyətlər, müstəqil dövlətimizə böyük itkilər gətirmiş təcavüzə son qoyulması üçün çoxşaxəli və səmərəli hüquqi-diplomatik addımlar atır. Bütün bunların nəticəsidir ki, indi dünya birliyi Azərbaycanın haqlı olduğunu, Ermənistanın işğalçı və təcavüzkar siyasət yeritdiyini daha yaxşı anlayır. Təsadüfi deyil ki, bir çox mötəbər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən qərar və qətnamələrdə Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktı birmənalı şəkildə dəfələrlə təsdiqlənmiş, onun təcavüzkarlıqdan əl çəkməsi tələb olunmuşdur.

Sadalanan məqamlar bir daha onu sübut edir ki, bu gün insan hüquq və azadlıqlarına, qanunların aliliyinə hörmət prinsiplərinə prioritet istiqamət kimi müstəsna dəyər verən müstəqil Azərbaycanın hüquqi, dünyəvi və demokratik dövlət imicinin formalaşmasında ümummilli liderimizin xidmətləri əvəzsizdir.

Azərbaycanın bugünkü və gələcək nəsillərinin Heydər Əliyevin şərəfli adı və ölməz ruhu qarşısında müqəddəs borcu onun əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışmaq, milli birliyimizə sədaqətlə xidmət göstərməkdir. Bu gün xalqımız ümummilli lider Heydər Əliyevin siyasi varisi – yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar şəxsiyyət kimi dünya siyasətində özünəməxsus yer tutan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşmişdir. Tam əminliklə deyə bilərik ki, Prezident İlham Əliyev dövlətimiz qarşısında taleyüklü məsələləri xalqımızın dəstəyi ilə başa çatdıracaq, ulu öndər Heydər Əliyevin müstəqil dövlətçilik irsini öz quruculuq fəaliyyəti ilə daha da zənginləşdirəcəkdir.

**“Azərbaycan”.-** 2009.-24 aprel .-№87.- S. 2.

## UĞURLU İSLAHATLARIN MÜƏLLİFİ

**Eldar İBRAHİMOV,**
Milli Məclisin Aqrar siyasət komitəsinin sədri,
YAP Siyasi Şurasının üzvü

***Dünyanın ən inkişaf etmiş ölkələrinin keçdiyi yola nəzər saldıqda məlum olur ki, materiya daim hərəkətdə olduğu kimi, dövlət də daim inkişaf etməli, ölkədə quruculuq işləri aparılmalıdır. Bu proseslərin dayanması ölkədə durğunluğun yaranmasına və əks prosesin – tənəzzülün başlanmasına səbəb olur və son nəticədə ölkənin dağılması ilə sona çatır. Azərbaycan Respublikasının da daxil olduğu keçmiş SSRİ-də XX əsrin 80-ci illərində "yenidənqurma" haqqında təbliğat başlansa da, həmin dövrdə ölkə rəhbəri M. Qorbaçovun islahat aparmağa cəsarəti və səriştəsi olmadığından tənəzzül daha da dərinləşdi və 1991-ci ilin ortalarında SSRİ bir ölkə kimi dünya xəritəsindən silindi.***

Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktını qəbul etdi və Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək suveren müstəqil Azərbaycan Respublikasının yaradılması işinə başladı. Lakin 1991-1992-ci illərdə A. Mütəllibovun və 1992-1993-cü illərdə Xalq Cəbhəsi-Müsavat cütlüyünün rəhbərliyi dövründə ölkədə tənəzzül daha da gücləndi. Bu isə onunla əlaqədar idi ki, hüquqi bazaya söykənən iqtisadi islahatlar aparılmadan siyasi islahatlar önə çəkilir, ölkənin inkişafını təmin edən iki ayrılmaz amilin – iqtisadi və siyasi islahatların süni surətdə bir-birindən ayrılması prosesi gedirdi. Belə bir eksperimentin aparılması isə cəmiyyət və dövlət üçün çox təhlükəli olduğundan ölkəni geri çəkirdi. 1991-1993-cü illərdə ölkə rəhbərliyi tərəfindən heç bir elmi əsasa söykənməyən bu siyasət ölkə iqtisadiyyatının dağıdılmasına, xalq mülkiyyətinin ayrı-ayrı vəzifəli şəxslər tərəfindən mənimsənilməsinə, hərc-mərcliyin və özbaşınalığın vüsət almasına səbəb olmaqla cəmiyyət üzvlə-rində çaşqınlıq və ümidsizlik yaratmışdı. Azərbaycan Respublikası öz müstəqilliyini itirmək təhlükəsi qarşısında qalmaqla çox ağır günlərini yaşayırdı, ölkə rəhbərliyi törətdikləri əməlin girovuna çevrilərək acizlik nümayiş etdirirdi.

Onu da qeyd etmək lazımdır ki, respublikamızda 1991-1993-cü illərdə həyata keçirilən dağıdıcı fəaliyyət qısa bir dövrü əhatə etsə də, öz mənfi təsirinin gücünə görə geniş və əhatəli idi. Belə ki, istehlak mallarının qiyməti 1990-cı ilə nisbətən yüz dəfələrlə artmış, büdcə kəsirinin ÜDM-ə nisbəti xeyli yüksəlmiş, ölkə iqtisadiyyatına bir manat da olsa xarici sərmayə qoyulmamış, xarici ticarət dövriyyəsinin həcmi əhəmiyyətli dərəcədə azalmış, maliyyə-bank sistemi iflic vəziyyətinə düşmüşdü. Yaranmış bu acınacaqlı vəziyyətdən çıxış yolunu Azərbaycan xalqı özü müəyyən etdi və 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə Heydər Əliyev hakimiyyətə gətirildi. Heydər Əliyev ölkəyə rəhbərliyə başladığı ilk gündən qayda-qanunun bərpası, icra intizamına əməl edilməsi, cəmiyyətdə əmin-amanlığın bərqərar olması üçün çox mühüm və təsirli tədbirlər həyata keçirməyə başladı.

İqtisadi və siyasi islahatları həyata keçirmək üçün ölkədə ilk növbədə siyasi sabitliyin mövcudluğunu yüksək qiymətləndirən ulu öndər 1994-cü ilin may ayında atəşkəs barədə müqavilə imzalanmasına nail oldu. Bu, ölkədə nisbi sabitliyin təmin edilməsi iqtisadi islahatlara başlamaq üçün əsaslı zəmin yaratdı və 1994-cü ilin sentyabr ayında dünyanın inkişaf etmiş bir çox ölkələrinin aparıcı şirkətləri ilə "Əsrin neft müqaviləsi" imzalandı. Buna baxmayaraq, müəyyən qüvvələr Azərbaycanda yeni yaranmış sabitliyi pozmaq, öz məkirli niyyətlərini həyata keçirmək üçün 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında dövlət çevrilişinə cəhdlər təşkil etdilər. Lakin Heydər Əliyevin yüksək təşkilatçılığı və vaxtında həyata keçirdiyi tədbirlər bu cəhdlərin qarşısını aldı və ölkəmizdə siyasi sabitlik təmin edildi.

Bundan sonra bazisi təşkil edən iqtisadi islahatlarla yanaşı, üstqurum yaratmağa xidmət edən siyasi islahatların vəhdətinə yönəlmiş tədbirlər həyata keçirilməyə başlandı. 1995-ci ildə Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli, iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq qalaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək kimi niyyətləri özündə təsbit edən Azərbaycan Respublikasının Konstitusiyası hazırlandı və qəbul olundu. Bu sənəd hakimiyyətin bölünməsi prinsipinə əsaslanaraq mülkiyyətin dövlət, bələdiyyə və xüsusi mülkiyyət növlərində olmasını elan etdi. Konstitusiyada qeyd olundu ki, Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir. Bütün bu müddəalar ölkəmizdə hüquqi bazaya əsaslanan demokratik islahatların keçirilməsinə imkan yaratdı.

Ölkə iqtisadiyyatının belə ağır vəziyyətdə olmasına baxmayaraq, ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti və rəhbərliyi ilə ardıcıl və sistemli tədbirlər həyata keçirilməyə başlandı. Bu tədbirlər sırasına iqtisadi islahatların və inkişafın formalaşmaqda olan Azərbaycan modelinin tərkib hissəsi kimi bir çox irimiqyaslı sənədlərin qəbul edilməsini aid etmək olar. Bunlardan "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı", "Azərbaycanda kiçik və orta sahibkarlığa Dövlət Yardımı Proqramı (1997-2000-ci illər)", "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı", "Azərbaycan Respublikasında Kiçik və Orta Sahibkarlığın İnkişafının Dövlət Proqramı (2002-2005-ci illər)", "Azərbaycan Respublikasında maşınqayırma sənayesinin inkişafının Dövlət Proqramı (2002-2005-ci (illər)", "Azərbaycan Respublikasında aqrar bölmənin inkişafının Dövlət Proqramı (2002-2006)", "Azərbaycan Respublikasının demoqrafik inkişaf konsepsiyası", "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı", "Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı (2003-2005-ci illər)" və ölkənin bir çox iqtisadi və sosial məsələlərinə dair digər proqramları, konsepsiyaları qeyd etmək olar. Göründüyü kimi, ölkə iqtisadiyyatının, sosial məsələlərin bütün prioritet istiqamətləri üzrə konsepsiyalar, strategiya və proqramlar qəbul edilmiş, onların icrası nəzarətə götürülmüşdü.

Azərbaycan Respublikasının iqtisadiyyatında özünəməxsus yer tutan və ölkədə sosial vəziyyətə böyük təsir gücünə malik olan aqrar bölmədə də islahatların aparılması dövlət başçısından cəsarət və uzaqgörən siyasət həyata keçirilməsini tələb edirdi.

SSRİ dağıldıqdan sonra Azərbaycan Respublikasında keçən əsrin 70-ci illərində aqrar sahədə yaradılmış möhtəşəm maddi-texniki baza çox qısa zamanda, demək olar ki, məhv edilmiş, əvvəllər mövcud olan iqtisadi əlaqələr qırılmış, aqrar-sənaye kompleksi özbaşına buraxılmışdı. Aqrar bölmənin belə ağır vəziyyətində rəhbərliyə gəldikdən sonra Heydər Əliyev, ilk növbədə, bu sahənin hansı istiqamətdə inkişaf etdirilməsini müəyyən etməyə başladı. Məlum oldu ki, ölkə iqtisadiyyatının mühüm sahəsi və əhalinin 50 faizini əhatə edən aqrar bölməni keçmişdə olduğu kimi, inzibati-amirlik metodu ilə idarə etməklə inkişaf etdirmək qeyri-mümkündür və yeganə düzgün istiqamət aqrar sahədə köklü islahatlar aparılmaqla vəziyyəti tədricən düzəltmək olar. 1996-cı il iyunun 24-də "Respublikada aqrar islahatların gedişi vəziyyətinə və torpaq islahatları haqqında qanun layihəsinin müzakirəsinə həsr olunmuş" müşavirədə Heydər Əliyev demişdir: *"Bir Prezident kimi mən Azərbaycanın aqrar bölməsində, ümumiyyətlə, iqtisadiyyatında dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır. Bu, dövlət siyasətimizin əsas prinsipləridir".*

Ulu öndər Heydər Əliyev ölkə iqtisadiyyatının gələcək inkişafında islahatların həlledici əhəmiyyət daşıdığına böyük önəm verirdi. O bu inam və qənaətə hələ 1982-1987-ci illərdə Moskvada işlədiyi müddətdə gəldiyini və islahatların həyata keçirilməsinin təşəbbüskarlarından biri olduğunu dəfələrlə bəyan etmiş və Azərbaycanda ikinci dəfə hakimiyyətə gəldikdən sonra islahatlara tezliklə başlamaq üçün möhkəm qətiyyət və cəsarət göstərmişdir. Bunun üçün ilk növbədə, kənd təsərrüfatında əsas istehsal vasitəsi olan torpaqların özəlləşdirilməsi, kolxoz və sovxozların ləğv edilərək onların əvəzinə yeni təşkilati hüquqi formalı təsərrüfatların yaradılması, sahibkarlığın inkişaf etdirilməsi və digər islahat tədbirlərinin həyata keçirilməsi lazım idi. Aqrar islahatların hazırlanması, həyata keçirilməsi və uğurla başa çatdırılması hər şeydən əvvəl islahatın ədalətli, kənd sakinləri üçün ağrısız aparılmasını tələb etdiyindən ümummilli lider Heydər Əliyev bu məsələyə çox diqqətlə yanaşmaqla onun mərhələlər üzrə həll olunması modeli üzərində dayandı.

Birinci mərhələdə (1993-1994-cü illər) aqrar islahatlar barədə ölkəmizdəki reallıqlar nəzərə alınmaqla dünya təcrübəsinin öyrənilməsinə və ümumi bir fikrin formalaşmasına diqqət yönəldildi.

İkinci mərhələ (1995-1996-cı illər) aqrar islahatlara başlamaq üçün müvafiq normativ hüquqi bazanın yaradılması ilə xarakterizə olunur. Bu dövrdə aqrar islahatları həyata keçirmək üçün hüquqi baza yaradan qanunların və digər normativ hüquqi aktların hazırlanması və qəbul edilməsi əsas prinsip kimi müəyyən edildi. "Aqrar islahatın əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında", "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının qanunları və "Aqrar islahatların həyata keçirilməsini təmin edən bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin fərmanı və digər qanunvericilik aktları təsdiq edilərək tətbiq edilməyə başlandı.

Aqrar islahatların üçüncü mərhələsi 1997-2000-ci illəri əhatə edir. Bu dövrdə ölkə ərazisində praktiki olaraq müvafiq qanunvericilik bazasına əsaslanaraq kolxoz və sovxozların ləğv edilməsinə, onların əmlakının və torpağının özəlləşdirilməsinə başlanmışdır. Kənd əhalisi islahat nəticəsində xüsusi mülkiyyətlərinə götürdükləri torpaq və əmlakdan istifadə edərək müxtəlif növlü təsərrüfatlar yaradıb sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa başladılar. Eyni zamanda, islahatın hüquqi bazasını möhkəmləndirmək, yeni yaradılan təsərrüfatçılıq

formalarının fəaliyyətini ölkənin iqtisadi və siyasi həyatında baş verən islahatlar və yeni idarəetmə institutlarının fəaliyyəti ilə əlaqələndirmək üçün Torpaq, Su, Meşə məcəllələri, "Torpaq icarəsi haqqında", "Torpaq bazarı haqqında", "Toxumçuluq haqqında", "Yeyinti məhsulları haqqında", "Taxıl haqqında", "Üzümçülük və şərabçılıq haqqında" və aqrar-sənaye kompleksinin digər məsələlərini tənzimləyən 40-dan çox bir sıra qanunlar və bu qanunların tətbiqini təmin edən çoxsaylı normativ hüquqi aktlar qəbul edildi. Bundan başqa, aqrar-sənaye kompleksinin mühüm sahələri olan kənd təsərrüfatı, maşınqayırma və emal müəssisələrinin özəlləşdirilməsi və onların bəzilərinin səhmdar cəmiyyətlərə çevrilməsi, bank-kredit və maliyyə sisteminin yenidən qurulması prosesi başlandı.

Aqrar islahatların 2000-2002-ci illəri əhatə edən dördüncü mərhələsində torpaq və su üzərində bələdiyyə mülkiyyətinin bərqərar olması istiqamətində mühüm əhəmiyyəti olan "Bələdiyyələrin əraziləri və torpaqları haqqında", "Bələdiyyələrin su təsərrüfatı haqqında" və "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" qanunlar qəbul edilmiş, aqrar islahatların dərinləşməsi, torpaq və kredit bazarının formalaşması, fermer təsərrüfatlarının səmərəli fəaliyyət göstərməsini təmin edən, kənddə orta və kiçik sahibkarlığın inkişafına təkan verən bir neçə normativ hüquqi sənədlər imzalanmışdır. Aqrar bölmənin gələcək inkişafına əlverişli şərait yaratmaq üçün iqtisadiyyatın bu sahəsinə investisiya qoyulması, vergi, kredit və sığorta siyasətinin yeniləşdirilməsi və təkmilləşdirilməsi üçün konkret tədbirlər həyata keçirildi, kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisindən başqa bütün vergilərdən azad edildi.

Görülən tədbirlər nəticəsində bütün kolxoz və sovxozların əmlakı, ən qiymətli torpaqları kənd sakinlərinə ədalətli qaydada paylandı. Torpaq islahatı nəticəsində Azərbaycan Respublikası ərazisinin 57 faizi dövlətin mülkiyyətində (əsasən meşələr, otlaqlar, qoruqlar, dövlət toxumçuluq və damazlıq təsərrüfatlarının torpaqları və s.) saxlandı, 23 faizi bələdiyyə mülkiyyətinə verildi, 20 faizi isə özəlləşdirildi.

Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti, gərgin fəaliyyəti nəticəsində 1995-ci ildə sosial-iqtisadi tənəzzül, siyasi xaos dövrü dinamik makroiqtisadi inkişaf və siyasi sabitlik dövrü ilə əvəz olundu. Ölkəmizin inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində uğurlar qazanılmağa başlandı. Ən böyük uğur isə xalqın mentalitetinə, mənafeyinə, dünyanın və zamanın tələbinə uyğun, ədalətli siyasət həyata keçirməklə davamlı inkişafa nail olmaqdır. Bu dövrdə Heydər Əliyevin rəhbərliyi ilə dövlət quruculuğu prosesində iqtisadi və siyasi islahatların paralel aparılmasına əsaslanan, MDB məkanında analoqu olmayan və mahiyyət etibarilə yeni bir model – Azərbaycan modeli formalaşdı.

Bu gün biz böyük fəxrlə qeyd edirik ki, 2003-cü ildə Azərbaycan xalqının böyük əksəriyyətinin səsini qazanmaqla demokratik seçki yolu ilə hakimiyyətə gələn Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyev irsinə sadiq qalaraq bu modeli təkmilləşdirir və ölkəmizin daha yüksək nailiyyətlər əldə etməsi üçün iqtisadi və sosial inkişafın prinsipcə yeni mərhələsinin təməlini qoymuşdur. Hakimiyyətə gəldiyi ilk vaxtlardan imzaladığı fərmanlar və sərəncamlar onu göstərir ki, cənab İlham Əliyev iqtisadiyyatın qloballaşması prosesində aqrar bölmənin dövlət dəstəyi olmadan inkişafının mümkün olmadığını yəqin etmişdir. Dövlətçiliyin möhkəmləndirilməsində məşğulluğun artırılmasını, yoxsulluğun ləğv edilməsi və ədalətli bölgü prinsiplərinin mühüm əhəmiyyət kəsb etdiyini yüksək qiymətləndirən Prezident İlham Əliyev bu istiqamətdə bir sıra tədbirlər görmüşdür. Prezidentin 2004-cü il fevralın 11-də imzaladığı Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı (2004-2008-ci illər) buna əyani sübutdur.

Ölkə əhalisinin ərzaq təminatının yaxşılaşdırılmasında, yeni iş yerlərinin açılmasında, yoxsulluğun azaldılmasında aqrar bölmənin geniş imkanlara malik olmasını nəzərə alaraq ölkə Prezidenti 2004-cü ilin oktyabrında "Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" və "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamlar imzalamışdır. Bu proqramda nəzərdə tutulan tədbirlər bölgələrdə yalnız kənd təsərrüfatının deyil, həmçinin sosial-iqtisadi və aqrar-ərzaq siyasətinin əsas istiqamətlərindən olan kənd ərazilərinin davamlı inkişafını da təmin etməyə yönəldilmişdir. Proqramda müxtəlif rayonlarda müasir tələblərə cavab verən, ən mütərəqqi texnologiya və avadanlıqla təchiz edilən yeni sosial və istehsal obyektlərinin tikilməsi, yeni yolların çəkilməsi, bölgələrin işıq, qaz və su təminatının yaxşılaşdırılması, çoxsaylı təhsil, səhiyyə, rabitə, mədəniyyət, idman, istirahət və turizm obyektlərinin istifadəyə verilməsi və digər infrastrukturun yaradılması nəzərdə tutulmuşdur. Ölkəmizdə aparılan islahatların nəticəsində aqrar-sənaye kompleksinin və kənd yerlərinin daha sürətli, hərtərəfli inkişafı təmin edilmişdir. Nəzərdə tutulan müddət ərzində regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı, ona əlavə edilmiş bir çox məsələlər tam surətdə uğurla yerinə yetirilmiş və proqramın icrasına 6 milyard manatlıq investisiya yönəldilmişdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə iqtisadi və siyasi islahatların sistemli həyata keçirilməsi Azərbaycan Respublikasının son illər dünyanın heç bir ölkəsində müşahidə edilməmiş sosial-iqtisadi artım sürəti əldə edərək lider ölkə olmasına imkan vermişdir. Belə ki, 2003-cü illə müqayisədə 2008-ci ildə dünya iqtisadiyyatı 25,4 faiz artdığı halda, Azərbaycan iqtisadiyyatı (ÜDM-in artımı) 2,6 dəfə artmış, ÜDM-in adambaşına düşən nominal

həcmi 2003-cü ilə nisbətən 5 dəfə artaraq 4440 manat təşkil etmişdir. Son 5 ildə ölkə iqtisadiyyatına 38 milyard manatlıq investisiya qoyulmuşdur ki, bunun da 16 milyard manatı daxili investisiyalar olmuş və onun xüsusi çəkisi 2003-cü ildəki 25 faizdən 2008-ci ildə 75 faizə çatmışdır. Son 5 il ərzində kənd təsərrüfatında məhsul istehsalının nominal dəyəri 2,4 dəfə artmış, aqrar sahədə yaradılan əlavə dəyərin real artım səviyyəsi 25,1 faiz olmuşdur. Ərazimizin 20 faizinin erməni işğalında olmasına baxmayaraq, keçən il ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalının dəyəri 3301 milyon manat təşkil etməklə 1991-ci ilin səviyyəsini xeyli ötmüşdür. Hazırda kənd təsərrüfatı məhsulları istehsalında özəl bölmənin payı 99,7 faiz təşkil edir. İqtisadiyyatın rabitə, nəqliyyat, tikinti, ticarət, əhaliyə göstərilən pullu xidmət sahələrində də misli görünməmiş artım əldə edilmiş, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılması üçün məqsədyönlü tədbirlər həyata keçirilməyə başlanmışdır.

Respublikamızın iqtisadiyyatında əldə edilən yüksək nailiyyətlər ölkə əhalisinin sosial durumuna öz müsbət təsirini göstərmiş və bu sahədə böyük uğurlar qazanılmışdır. Son 5 ildə əhalinin sosial müdafiəsinə diqqət xeyli artmış və bu məqsədilə 2008-ci ildə 2003-cü ilə nisbətən dövlət büdcəsindən 5,2 dəfə çox vəsait xərclənmişdir. 2008-ci ildə minimum əməkhaqqı və əmək pensiyalarının baza hissəsi 75 manata çatmış, ehtiyac meyarının həddi isə 2009-cu il yanvarın 1-dən 60 manat məbləğində təsdiq edilmişdir. 2003-cü ilə nisbətən 2008-ci ildə əhalinin gəlirləri 3,5 dəfə artmış və hazırda ölkədə orta aylıq əməkhaqqı 268 manata (335 dollara), aylıq pensiyaların orta məbləği isə 96 manata (120 dollara) çatmışdır ki, bu da əvvəlki illərlə müqayisədə xeyli çoxdur. Bu gün Azərbaycanda yoxsulluğun səviyyəsi 13,2 faiz təşkil edir və 2003-cü ildəki 49 faizlə müqayisədə çox böyük nailiyyətdir. Son 5 ildə əldə edilmiş uğurlu nəticələrdən biri də məşğulluğun sürətli artımıdır. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrası və həyata keçirilən digər tədbirlər nəticəsində 2004-2008-ci illərdə 766 min yeni iş yeri açılmışdır ki, bunun da 548 mini daimidir.

Bütün bunlar onu deməyə əsas verir ki, Heydər Əliyevin iqtisadi, o cümlədən aqrar islahatlara olan inamı və uzaqgörən siyasəti öz təsdiqini tapır. Belə ki, ümummilli liderimiz hələ 1994-cü il dekabrın 23-də aqrar bölmədə iqtisadi islahatlara həsr olunmuş müşavirədəki çıxışında demişdir: *"İslahatlar ancaq və ancaq aqrar bölmənin səmərəliliyini, kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, torpaqdan daha səmərəli istifadə etmək üçün olmalıdır. Bu islahatlar 70 il müddətində əldə olunmuş potensialı dağıtmaq üçün yox, əksinə, ondan daha səmərəli istifadə etmək üçün aparılmalıdır".*

Ölkəmiz müstəqillik əldə etdikdən sonra ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi və əsasını qoyduğu sosial-iqtisadi inkişaf strategiyasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan Respublikası dünya iqtisadiyyatında istehlakçı ölkədən istehsalçı ölkəyə çevrilmiş və ölkəmizin bu gün bir çox ölkələrin üzləşdiyi enerji təhlükəsizliyi problemi yoxdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına həsr olunmuş iclasında Azərbaycan Prezidenti İlham Əliyev qeyd etmişdir ki, dünya tarixində maliyyə və iqtisadi böhran ili kimi qalacaq 2008-ci il də Azərbaycan üçün növbəti uğurlu il olmuşdur. Qeyd edilmişdir ki, Azərbaycan bir neçə il bundan əvvəl elektrik enerjisi və qaz idxal edən ölkə olmaqla başqalarından asılı vəziyyətdə idi, elektrik enerjisi və qazın alınmasına külli miqdarda dövlət vəsaiti xərclənirdi. Bu isə ölkə iqtisadiyyatına çox böyük mənfi təsir göstərirdi. Lakin 2004-cü ildən başlayaraq 6 modul tipli elektrik stansiyasının tikilib istismara verilməsi Azərbaycanı elektrik enerjisi ilə tam təmin etdi, hətta vaxtilə işıqsız, qazsız qalan Naxçıvan indi Türkiyəyə 17 meqavat gücündə elektrik enerjisi ixrac edir. 2007-ci ilə kimi respublikamız təbii qaza olan tələbatını xaricdən idxal edilən qazın hesabına ödəyirdi. Lakin 2007-ci ildən həyata keçirilən əməli-praktik tədbirlər nəticəsində bütün imkanlar səfərbər edilərək tələbat yerli istehsal hesabına ödənildi və 2007-ci ildən başlayaraq Azərbaycan qaz idxal edən ölkədən qaz ixrac edən ölkəyə çevrilmişdir. Hazırda Azərbaycanda istehsal edilən təbii qaz Gürcüstanda, Türkiyədə, Yunanıstanda istehlak olunur və ölkəmizdən qaz almaq istəyənlərin sayı və coğrafiyası genişlənir. Fərəhli haldır ki, Azərbaycandan daha çox qaz istehsal və ixrac edən ölkələrdə qazlaşdırma 50-60 faiz səviyyəsində olduğu halda, ölkəmizdə qazlaşdırma 85 faiz təşkil edir və bu proses davam edir.

Azərbaycan bu gün bütün dünya ölkələrini və bəşəriyyəti narahat edən iki əsas problemdən, yəni, enerji və ərzaq təhlükəsizliyi problemlərindən birini tamamilə həll etmişdir. Bu, enerji təhlükəsizliyi məsələsidir və hazırda ölkəmiz neft, elektrik enerjisi və qazla özünü tam təmin etməklə yanaşı, həmin ehtiyatları ixrac edərək bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında iştirak edir və bu məsələdə dünya miqyasında öz töhfəsini verir.

Ərzaq təhlükəsizliyi probleminin həlli istiqamətində də respublikamızda konkret tədbirlər görülür və bu məsələyə xüsusi diqqət yetirilir. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti 2008-ci ilin avqust ayında "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və "Kənd təsərrüfatı məhsulları istehsalçılarının toxum, gübrə və damazlıq heyvanları ilə təmin edilməsinə əlavə dəstək verilməsi barədə" sərəncamlar imzalanmışdır. Bu sərəncamların icrasını təmin etmək

məqsədilə 2008-ci ilin dövlət büdcəsindən 25 milyon manat vəsait ayrılmış, 2009-cu ilin büdcəsindən isə 60 milyon manat vəsait ayrılması nəzərdə tutulmuşdur. Onu da qeyd etmək lazımdır ki, ölkəmizdə kartof, meyvə-tərəvəz və bostan məhsullarına olan tələbat tam ödənilir və istehsal edilən məhsulların bir qismi ixrac olunur. Respublikamızda ərzaq taxılına olan tələbat ödənilsə də, heyvandarlıq məhsullarına olan tələbatı tam ödəmək üçün heyvandarlığın yem bazasını möhkəmləndirmək məqsədilə taxıl idxalına ehtiyac var. Ona görə də taxıl və heyvandarlıq məhsullarına olan tələbatı yerli istehsal hesabına təmin etmək məqsədilə bir sıra tədbirlər həyata keçirilməyə başlanmışdır. Bunlar əsasən aqrar sahədə çalışan sahibkarlara güzəştli kreditlərin verilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarına vergi və sığorta güzəştlərinin tətbiqi, subsidiyaların verilməsi, gömrük rüsumlarının ödənilməsində güzəştlər, aqrolizinq yolu ilə texnika, gübrə, toxum, damazlıq heyvanların alınıb fermerlərə verilməsi və digər dövlət yardımları göstərilməsidir. Aqrar bölməyə dövlət qayğısının nəticəsidir ki, 2008-ci ildə 2007-ci ilə nisbətən taxıl istehsalı 494 min ton artmış və 2009-cu ilin məhsulu üçün keçən ilə nisbətən 231 min hektar çox sahədə dən üçün taxıl səpini aparılmışdır ki, bu da taxıla olan tələbatın daha dolğun ödənilməsinə yönəldilmişdir.

Prezident İlham Əliyev qeyd etmişdir ki, biz tam şəkildə özümüzü bütün strateji məhsullarla təmin etməliyik. Enerji və ərzaq təhlükəsizliyi ilə yanaşı, ölkəmiz üçün vacib olan nəqliyyat təhlükəsizliyini təmin etmək məqsədilə böyük investisiyalar qoyulur, nəqliyyat sektorunun bütün istiqamətlərində çox ciddi nəticələr, gözəl nailiyyətlər var. Belə ki, bu gün Azərbaycan neftini, qazını dünya bazarına çıxaran 7 kəmər mövcuddur və onların hamısı işlək vəziyyətdədir.

Bax, budur müasir Azərbaycanda mövcud reallıq. Bütün bu uğurlar və əldə edilən nailiyyətlər isə hər şeydən əvvəl, ölkəmizdə həyata keçirilən iqtisadi və siyasi islahatların Heydər Əliyev – Azərbaycan modelinin ölkə Prezidenti İlham Əliyev tərəfindən gündən-günə təkmilləşdirilərək milli mənafelərə və qloballaşan dünya siyasətinə uyğun olaraq düzgün istiqamətdə aparılmasıdır. Heç də təsadüfi deyildir ki, dünyanın ən birinci və qabaqcıl beynəlxalq maliyyə qurumu olan Dünya Bankı Azərbaycanı 2008-ci ilin yekunlarına görə ilin bir nömrəli islahatçı ölkəsi kimi tanıyaraq bütün dünyaya bəyan etmişdir. Bu, bir daha onu göstərir ki, ölkəmizdə qazanılan uğurların təməlində respublikada həyata keçirilən düzgün siyasi xətt və baş verən müsbət proseslər dayanır.

Nazirlər Kabinetinin 2008-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: *"Ölkədə hökm sürən siyasi sabitlik, xalqla iqtidar arasında olan birlik, iqtisadi islahatlar, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurla icra olunması, sosial məsələlərin həlli, insanların həyat səviyyəsinin yaxşılaşdırılması, çoxsaylı sosial obyektlərin tikilməsi, infrastruktur layihələri – bu siyahını davam etdirmək mümkündür – bütün bu amillər bir-biri ilə bağlıdır. Budur uğurlarımızın əsas səbəbi və növbəti illərdə biz bu siyasəti davam etdirəcəyik".*

Ümummilli lider Heydər Əliyevin başladığı iqtisadi və siyasi islahatlar bu gün Prezident İlham Əliyev tərəfindən çox uğurla davam etdirilir və ölkəmiz dünya iqtisadiyyatının inkişafına təkan verərək qloballaşan dünyada özünə layiqli yer tutmaq üçün inamla irəliləyir.

**"Azərbaycan".**- 2009.- 28 aprel.- №90.- S. 2.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA QADIN SİYASƏTİ

**Nurlana ƏLİYEVA,**
YAP Qadınlar Şurasının sədri,
filologiya elmləri doktoru, professor

Bu ilin martında Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə keçirilən referendum ölkəmizdə demokratik proseslərin dərinləşdirilməsi istiqamətində ciddi addım oldu. Ümumxalq səsverməsində xalqın tam əksəriyyətinin iştirakı bir həqiqəti təsdiqlədi: referendumun keçirilməsi ilə bağlı cəmiyyətin siyasi avanqardı YAP düzgün və məsuliyyətli qərar qəbul etmişdir. Səsvermənin siyasi nəticəsi belədir: Azərbaycan xalqı Prezident İlham Əliyevin iqtisadi çiçəklənməyə və cəmiyyətin rifahının yüksəlişinə yönəlmiş siyasətini dəstəkləyir və himayə edir. Elin gözü tərəzidir, deyiblər. Ana qanunumuzda edilən dəyişikliklər ölkənin idarə edilməsində xalqın rolunu artıracaq, dövlətimizi daha da möhkəmləndirəcəkdir.

Bəli, dövlətimizi möhkəmləndirəcək, çünki xalqla dövlətin birliyi üçün daha geniş imkanlar yaranacaq. Buna bizim ciddi ehtiyacımız vardır. Son günlər Türkiyə ilə Ermənistanın sərhədlərinin açılması barədə narahatedici xəbər də bizim cəmiyyətin milli vəhdətə, dövlətimiz ətrafında daha sıx birliyə çox ehtiyacı olduğunu göstərir. Bəzi Qərb dövlətlərinin himayə etdiyi erməni təcavüzkarlığı qarşısında xalqımız, ilk növbədə, öz qüvvələrinə güvənməli, müstəqil dövlətimizin, milli ordumuzun daha qüdrətli olması naminə addımlar atmalıdır. Romantik qardaşlıq şüarları və ritorikası bizi çaşdırmamalıdır. Torpaqlarımızın 20 faizini itirəndə biz tək idik. Bu həqiqət anı idi. Yaxşı dost çətin gündə tanınar. Dövlət və xalq anlayışlarını eyniləşdirmək bizə baha başa gələ bilər. Türkiyə dövləti bir şeydir, Türkiyə xalqı başqa. Hər dövlətin öz maraqları var. Xalqı isə öz dövləti qorumalıdır.

Yeni Azərbaycan Partiyasının Qadınlar Şurası hakim siyasi partiyanın mübariz bir dəstəsidir. Heydər Əliyevin partiyasında Azərbaycan qadınlığının yüksək siyasi şüurlu və mübariz hissəsi toplanmışdır. YAP Qadınlar Şurası dövlətimizin və xalqımızın həyatında baş verən bütün taleyüklü proseslərdə yaxından iştirak edir. 1993-cü ildə böyük öndər yenidən hakimiyyətə qayıdandan sonra xalq onun milli qurtuluş strategiyasını dəstəklədi. Bu strategiyanın əsas qayəsi ölkəmizdə sülh və əminamanlıq, siyasi sabitlik və tərəqqi yaratmaq idi. Biz analara isə bunlar övladlarımızı böyütmək, ərsəyə gətirmək, xoşbəxt görmək üçün zəruri olan əsas siyasi şərtlərdir.

Tarixən Azərbaycan cəmiyyətində ağbirçəklərin, anaların xüsusi hörməti və nüfuzu olub. Ona görə 1995-ci ildə böyük öndərin tövsiyəsi ilə YAP-ın tərkibində qadın şuralarının yaradılması bizim milli mentalitetimizə uyğun bir hadisə idi. Qədim mənəvi dəyərlərdən cəmiyyətimizi sağlamlaşdırmaq və möhkəmləndirmək üçün istifadə etmək təşəbbüsü idi. Yaşadığı zamanın və məkanın xarakterindən asılı olmayaraq qərinələr boyu əxz etdiyi milli-mənəvi dəyərləri, mental xüsusiyyətləri qoruyub saxlayan, taleyini, gələcəyini inandığı, etimad bəslədiyi siyasi qüvvəyə etibar edən Azərbaycan qadınlarının qabaqcıl hissəsi bu təşəbbüsü nəinki bəyəndi, hətta şüurlu surətdə ona qoşulmaq və onun fəaliyyətində iştirak etmək qərarına gəldi. 1993-1996-ci illərdə Yeni Azərbaycan Partiyasının sıralarına minlərlə qadın daxil oldu.

Bu gün yarım milyonluq möhtəşəm YAP ordusunun 43,5 faizini qadınlar təşkil edir. Onlar təhsil və səhiyyə, mədəniyyət və incəsənət işçiləri, alimlər, Qarabağ müharibəsi əlilləri, qaçqın və məcburi köçkünlər, təqaüdçülər, evdar qadınlar, ali və orta ixtisas məktəblərinin tələbələri, kənd təsərrüfatında, istehsal sahələrində işləyən qadınlardan ibarətdir.

Bu insanları Heydər Əliyev partiyasının sıralarına öz əqidələri, müstəqil dövlətimizi möhkəmləndirməkdə, sosial yönümlü siyasət yeritməkdə ona köməkçi olmaq istəkləri gətirmişdir.

Bu istəklər təsadüfi deyildir. Azərbaycan qadınını mütəşəkkil bir qüvvə kimi səfərbər edib ümumxalq mübarizəsinə ruhlandırmaqda, onu böyük cahanşümul işlərə qoşmaqda, cəmiyyətdə və dövlətdə ona layiq olduğu yeri təmin etməkdə biz hər kəsdən əvvəl siyasi miqyas və nüfuzuna görə heç bir dövlət rəhbəri ilə müqayisəyə gəlməyən böyük hakimiyyət ustadı milli öndərə borcluyuq. Son 16 ildə qadınların dövlət qurumlarında və ümumiyyətlə ictimai-siyasi həyatda təmsil olunmaq imkanlarının əhəmiyyətli dərəcədə genişlənməsi ulu öndərimizin əsasını qoyduğu liberal gender siyasəti nəticəsində mümkün olmuşdur.

Bu gün Heydər Əliyev həyatda yoxdur. Amma Azərbaycanın qadınları ölkədə gedən geniş quruculuq işlərində daha böyük fəallıq göstərir. Çünki ölkəmizin birinci xanımı və hörmətli prezidentimizin silahdaşı Mehriban xanım Əliyeva öz fəaliyyəti ilə qadın hərəkatını nəinki canlandırdı, mən deyərdim ki, onun tarixində yeni bir mərhələ açdı. Mehriban Əliyevanın fəaliyyəti ilə qadın hərəkatının forma və metodları müasirləşdi. Mehriban xanım bütün layihələrində həm zadəgan dəyərlərinin davamçısı, həm də birinci xeyriyyəçi kimi müqəddəs analığın xidmətindədir. Onun təşəbbüsü ilə əlil və valideynsiz uşaqlara sosial himayə göstərilməsi

həqiqətən bir ənənəyə çevrildi. Bu gün hətta gənc tələbə qızlar belə, vəsait toplayıb uşaq evlərinə, internat məktəblərinə, fiziki cəhətdən qüsurlu uşaqların tərbiyə aldığı mərkəzlərə gedirlər. Bunlar Mehriban Əliyevaya təqliddir, amma mən belə təqlidi alqışlamaq istəyirəm. Çünki bu təqlid cəmiyyətimizdə ana şəfqətini, milli dəyərlərə pərəstişi artırır. Bunlar mənəvi dirçəliş və yüksəliş əlamətləridir.

Mehriban Əliyeva qadın hərəkatının yönünü həm də təhsilə, məktəbə, səhiyyəyə, uşaqların sağlamlığına, mədəniyyət və idman proqramlarına çevirdi. Nəticədə onun fəaliyyəti beynəlxalq miqyasda diqqəti cəlb etdi. Bu gün YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfirinin fəaliyyəti Azərbaycan qadınlığının təntənəsinə çevrilib. Hazırda Mehriban Əliyevanın humanist və mədəni layihələri onlarla ölkələr tərəfindən dəstəklənir. Onun nüfuzu və işgüzarlığı sayəsində Azərbaycan YUNESKO tədbirlərinin mərkəzinə çevrilib. Bu silsilə tədbirlər artıq 5 ildir ki, davam edir və Azərbaycan həqiqətlərinin dünyada yayılmasına xidmət göstərir.

Mehriban Əliyevanın Azərbaycan maarifinin dirçəldilməsi istiqamətində miqyası görünməmiş məktəb tikintisi və yenidən qurulması layihələri xüsusilə ucqar bölgələrimiz üçün həqiqi bir mədəni inqilabdır. Xalqın gələcəyi, balalarımızın xoşbəxt sabahı üçün yeni məktəblər tikməkdən, onlara cəmiyyətin ümumi qayğısını təşkil etməkdən səmərəli heç nə ola bilməz.

Müasir ağbirçəklik və analıq ölkə qadınlarının ümumi iradəsidir. Bu iradə ölkədəki qadın hərəkatında və qadın qurumlarındadır.

Əslində, cəmiyyətdə dünyaya övlad gətirib böyütməkdən daha vacib heç nə ola bilməz. Geniş baxanda cəmiyyət, bütün ölkə, onun bütün qurum və sahələri də bu işdə köməkçidir. Bağça da, məktəb də, ali təhsil də, elm və mədəniyyət də, fabrik və zavodlar da bu hədəfə xidmət edirlər. Bəlkə elə ona görə də bütün dünyada qadınların rolunun artımı hiss olunur. Feminist hərəkatlar bunun üzdə olan hissəsidir. Ən mühümü başqa cəhətdir: cəmiyyətləri idarə edən səlahiyyətli adamlar arasında qadınların sayı artır: siyasətdə, iqtisadiyyatda, elmdə, təhsildə, mətbuatda bunu hər addımda görüb duymaq olar. Bizim ölkəmiz də istisna deyil: hökumətdə, nazirliklərdə, milli məclisdə qadınlarımız fəaldır. Lakin bütün bunlar azdır.

Biz analar ölkədə və dünyada ilk növbədə sülhün və əminamanlığın möhkəmlənməsinə gənc nəslin sabahı üçün işıq və ümid yeri olmasına çalışmalıyıq. Bu gün dünyada baş verən sürətli proseslər, regional konfliktlərin səngiməməyi məni bir ana kimi çox narahat edir. Ermənilərlə sərhəddə atəş səsləri kəsilmir. Ona görə biz möhtərəm Prezidentimiz İlham Əliyevin Qarabağ problemini dinc, diplomatik vasitələrlə həll etmək xəttini, onun humanist mahiyyətini himayə etməli, insanlara çatdırmalıyıq. Dünya qadın təşkilatlarının böyük bir hissəsi sülh problemi, beynəlxalq təhlükəsizlik məsələləri ilə məşğul olur. Biz onlarla əlaqələrimizi daha da gücləndirməli, sülh uğrunda ümumdünya qadın hərəkatının işinə öz töhfələrimizi verməliyik.

Hər bir ana istəyir ki, evində ruzi və bolluq olsun. Övladlarımız sağlam, zəkalı formalaşsınlar, müasir məktəblərdə təhsil alsınlar. Ölkədə və məişətdə yaşayış rahat, gözəl olsun. Ali təhsil almaq, iş yeri tapmaq imkanı genişlənsin. Bunlar bizim həyatımızın mənası olan balalarımızın səadəti üçün lazımdır, bizim onların həyatından fərəhlənə bilməyimiz üçün gərəkdir. Bu arzuların ölkədə uğurlu həllinin əsası Prezident İlham Əliyevin iqtisadi siyasətindədir. Bu mənada qadınların iqtisadi quruculuq prosesində fəal iştirakı elə övladlarımızı himayə etməyin bir yoludur. Amma bunun üçün biz fəal mövqe tutmalı, ölkə rəhbərinin iqtisadi proqramlarını diqqətlə izləməliyik. Bu proqramın əsas hədəfi ölkədə əhalinin alıcılıq qabiliyyətini, pensiya və əməkhaqlarını, müxtəlif müvinətləri artırmaqla daxili bazarı stimullaşdırmaqdır. Bu siyasətin reallaşması üçün neft strategiyasının imkanlarından, regionların inkişafı proqramlarının nəticələrindən, maliyyə sabitliyi siyasətinin imkanlarından bacarıqla istifadə olunur. Dünyadakı maliyyə böhranının bizim iqtisadi həyatda ziyanlı nəticələri demək olar ki, hiss olunmur. Bunlar ölkə rəhbərinin iqtisadi siyasətinin uğurlarıdır. Buna görə də Azərbaycan qadını İlham Əliyevin siyasi kursunu öz sosial təhlükəsizliyinin və iqtisadi rifahının alternativsiz təminatçısı kimi qəbul edir və bu siyasi kursun cəmiyyətin uğurlu gələcəyini təmin edəcəyinə qətiyyətlə inanır.

Zamanın mürəkkəb prosesləri içində doğru mövqe tutmaq üçün biz analara nə lazımdır? Həmişəki kimi qadın praktikliyinə, sağlam düşüncəyə üstünlük vermək. Qadının sağlam düşüncəsi isə gurultulu, emosional, şirnikdirici sözləri qəbul etmir, ancaq real əməllərə, işlərə, öz həyatında hiss etdiyi nəticələrə inanır. Məncə, İlham Əliyevin son beşillik rəhbərliyi dövründə öz dolanışığının yaxşılaşdığını hiss etməyən, əməkhaqqı, pensiyası artmayan, doğma ölkəmizin hər yerində gedən yeniləşmə və quruculuq işlərindən fərəhlənməyən, cəmiyyətimizin yeni bir inkişaf mərhələsinə qalxdığını görməyən bir insanın tapılacağına inanmıram. Məncə, ana və qadın meyarı ilə ən yaxşı, ən islahatçı siyasət elə budur. Bu, İlham Əliyevin real dəyişikliklər siyasətidir. Onun yeraltı sərvətin insan sərvətinə çevrilməsi istiqamətində yeritdiyi siyasətdir. Vətəni modernləşdirmə konsepsiyasının təşəbbüskarı olan Prezident İlham Əliyev gələcəyin fəal həyat mövqeyi, kamil vətəndaşlarını yetişdirmək, gənc nəslə qayğını artırmaq məqsədilə xüsusi proqramlar həyata keçirən dövlət əhəmiyyətli sənədlər imzalayıb. Bunlar ictimaiyyətə yaxşı məlum olan sərəncamlardır: Ailə, Qadın və Uşaq Problemləri

üzrə Dövlət Komitəsinin yaradılması (6 fevral 2006), "Xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı (2006-2010)", "Gənclərin xaricdə təhsil alması", "Avropa təhsil məkanına inteqrasiya", "Elektron Azərbaycan" və s. dövlət proqramlarıdır. Bunlar ölkənin ana və uşaqlarına qayğıya, orta təhsili modernləşdirməyə, istedadlı gənclərə diqqət göstərməyə və istedadları himayə etməyə yönəlmiş rəhbər sənədlərdir. Azərbaycan qadını hələ "Uşaq ili" elan edilmiş 2009-cu ilin sonunadək bu sərəncamların yeni istiqamətlərinin şahidi və iştirakçısı olacaq.

Bu günlərdə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiq edilməsi haqqında" sərəncam Azərbaycan vətəndaşının həyatını kökündən dəyişəcəyinə analar böyük ümidlər bəsləyir və ürəkdən inanırlar, Azərbaycan qadını 2003-2008-ci illərdə öz ölkəsinin iqtisadi cəhətdən ən sürətlə inkişaf etmiş ölkə kimi tarixə düşməsindən qürurlanmaya bilməz.

Müasir dövrdə idman hər bir ölkədə sosial tərəqqinin ən yaxşı göstəricisi sayılır. Gənc nəslin fiziki və mənəvi sağlamlığı ölkə rəhbərinin daim diqqət mərkəzindədir. Azərbaycanın bu gün nüfuzlu idman ölkəsi kimi tanınması məhz Prezidentimizin əməli siyasətinin nəticəsidir.

Həyatımızdakı sürətli dəyişikliklər əsas bir şeyi bizə əyani göstərir: Prezidentimiz praktikdir, qurucudur, siyasəti də konkret işləri başlamaq, davam etdirmək və sona çatdırmaq kimi qəbul edir. Bu, bizim ölkəyə, xalqa, başlıcası isə övladlarının və deməli ölkənin gələcəyi ilə nəfəs alan analarımıza lazım olan ən doğru və səmərəli siyasətdir.

Son beş-altı ildə ölkədə yarım milyondan artıq iş yeri açılıb. Hər ailəni dörd-beş nəfərdən ibarət saysaq, bu, üç milyona yaxın vətəndaşın ailə büdcəsində artım deməkdir. Mən quru rəqəmlərdən istifadə etmək istəmirəm: ailələrin dolanışığındakı yaxşılaşmanı hər bir ailə şənliyində, xeyir-şər süfrələrində də görmək olur. Köhnə nəsillərin nümayəndələri hətta israfçılıq hallarından gileylənirlər, çünki onlar çörək-bərəkət imtahanını və sınağını çox görüblər. Süfrəmizdəki bolluq xalqımızın öz zəhmətinin, iqtisadiyyatımızın tərəqqisinin ,ölkə rəhbərinin müdrik siyasətinin nəticəsidir. Həyat diktə edir ki, qəlbində torpaq, millət sevgisi olmayan insanlar xalqa tam gücü ilə xidmət edə bilməzlər. Sürətlə qloballaşan dünyamız da biz analardan məhz bunu istəyir. Azərbaycanın təəsübü ilə, onun bayrağının məhəbbəti ilə yaşayıb yaradan zəka sahibləri istəyir.

Bu isə daha çox ölkədə təhsilin keyfiyyətindən asılıdır. 90-cı illərin əvvəllərində məktəb, təhsil və səhiyyə sahəsindəki böhranlı hallar ümumi iqtisadi vəziyyətlə bağlı idi. Şagirdlər məktəbdən kütləvi şəkildə yayınır, ali məktəblərə sənəd verənlərin sayı azalırdı. İndi belə hallar keçmişdə qalıb: gənclərdə orta və ali təhsilə maraq əvvəlki dövrlərdən də artıqdır. Elm sahəsinə gənclərin axını müşahidə olunur. Bütün bunlar sosial böhran illərinin sosial çiçəklənmə və kütləvi optimizmlə əvəz olunduğunu nümayiş etdirir. Təhsilə və elmə maraq gələcəyə inam və ümidlərin ən yaxşı ifadəsidir. Bu ümidlər bizim cəmiyyətdə, ev-ocaqlarımızda vardır.

Bu gün evi, ocağı yaşadan qadınlığımız hər şeyi görüb-bildiyi kimi, düzgün qiymət verməyi də bacarır. Ölkəmizdə hər şey ideal halda deyil. İmkanlarımız artdıqca iddialarımız da artır. Biz neft gəlirləri hesabına böyük imkanlar qazanmışıq. Amma analar istəyir ki, biz yalnız neftdən asılı olmayaq, xüsusilə bölgələrdə ənənəvi sənaye sahələri inkişaf etsin, daha çox iş yerləri açılsın. Böyütdüyümüz övladlar gedib yad ölkələrin tərəqqisi üçün deyil, öz ölkəmiz üçün işləsinlər.

Bu gün ən böyük sosial problemlərdən biri ərləri qazanc məqsədilə xarici ölkələrə gedən qadınların problemidir. Rusiyaya və digər ölkələrə gedən kişilərin müvəqqəti gedişi sonradan bir çox hallarda daimi mühacirətə çevrilir. Belə ailələrdə böyüyən uşaqlar fərəhsiz həyata məhkumdur. Bu uşaqlardan ölkənin tərəqqisinə töhfə verən vətəndaşlıq səviyyəsi gözləmək çətindir. Əksinə, onların əksəriyyəti müxtəlif komplekslərdən əziyyət çəkirlər. Ona görə də tənha anaların reabilitasiyası qadın təşkilatlarının maraq dairəsində olmalıdır.

Mənə elə gəlir ki, kəndlərimizdə qadınlar üçün iş yerlərinin azlığı, qadın səhhəti ilə bağlı xidmətlərin səviyyəsinin yarıtmazlığı ciddi sosial nəzarətdə olmalıdır.

Hazırda ana və uşaqların sağlamlığı üçün çalışmaq ən böyük dövləti vəzifələrdən biridir. Hər bir millət və dövlət sağlam və normal adamların, övladların sayəsində tərəqqi edir.

Xaricdə sosial tərəqqinin səbəblərini və şərtlərini araşdıranlar bunu ilk növbədə, sağlam bədənli və sağlam düşüncəli vətəndaşların fəaliyyəti ilə bağlayırlar. Ona görə qabaqcıl ölkələrdə istedadlı gənclər üçün daha mürəkkəb təhsil proqramları olan təhsil ocaqları yaradırlar. Avropa dövlətləri və cəmiyyətləri belə məktəbləri bitirənlərə xüsusi ümidlər bəsləyir və xüsusi qayğı da göstərirlər.

Dövrümüzdə gənc anaların təhsilli olması daha vacib məsələdir. Uşaq anadan onun savadının genetik kodlarını da alır. Demək istəyirəm ki, ananın təkcə fiziki sağlamlığı yox, savadı və sağlam düşüncə qabiliyyəti də onun övladına ötürülür.

Tərbiyə və sağlamlıq böyük, ayrılmaz amillərdir. Heydər Əliyevi sadə bir qadın dünyaya gətirib tərbiyə etmişdi. Bu tərbiyənin keyfiyyəti onu xalqımızın xilaskarı, bütün millətin güvənci və fəxri kimi yetişdirdi. Ulu

Atatürkün gözəl kalamı var: “Böyük uğurlar qiymətli anaların böyütdüyü oğulların əməllərinin bəhrəsidir”. Ona görə qadın, ana sağlamlığı və tərbiyəsi işlərinə formal məsələ kimi yox, millətin gələcəyi kimi baxmaq lazımdır.

Hesab edirəm ki, YAP qadın şuralarının ümdə vəzifələrindən biri müvafiq bölgələrdəki hərbi hissələrin komandirləri, psixoloji-tərbiyə işləri ilə məşğul olan zabitlərlə sıx əlaqələr yaratmaqdır. Söhbət hərbi hissələrin daxili işlərinə amiranə şəkildə qarışmaqdan getmir. Bizim qadın şuraları da hərbi hissələrdə ilk növbədə, əsgər anası səlahiyyətlərindən istifadə etməlidirlər.

Ana olan yerdə ədalət olur- deyiblər. Bu bizim həyatımızın bütün sahələrinə aiddir. Görülən işlərdən, nəticələrdən arxayınlaşmaq olmaz. Həyatımızın bütün sahələrində, xüsusilə icra orqanlarında qadınların rolunu və fəaliyyətini gücləndirmək lazımdır. Cəmiyyətin hakim partiyası olan Yeni Azərbaycan Partiyasının rəhbərliyi, bütün Azərbaycan qadınlarının ictimai həyata daha fəal cəlb olunmasına köməklik göstərməlidir. Gənclərlə işi gücləndirmək, cavan qız və gəlinləri partiyamızın sıralarına daha fəal cəlb etmək bu günümüzün tələbidir.

İnanıram ki, cəmiyyətimizin bugünkü durumu siyasi və ictimai fəallığımızın artması üçün təkan olacaqdır. Cəmiyyətimizdə Prezident İlham Əliyevin qətiyyətli və ardıcıl siyasəti nəticəsində inkişaf və sabitlik hökm sürür. Lakin sürətlə dəyişən həyat da gözlənilməz problemlər və müşküllər ortaya qoyur. Bu problemlərin, müşküllərin operativ, ağıllı həlli sağlam cəmiyyət anlayışını meydana atır.

Heydər Əliyevin “Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Bu gün mənəvi tərbiyə keçmiş illərdən daha çox lazımdır” – aktual fikri vətəndaşların mənəvi tərbiyəsinin nə qədər əhəmiyyətli məsələ olduğunu bir daha sübuta yetirir.

Cəmiyyətin sağlam mənəvi dəyərlər əsasında inkişafı milli dövlətçiliyin daha etibarlı təməl üzərində intişar tapmasına, insanların şəxsi maraqlar deyil, ümumi məqsədlər ətrafında səfərbər olunmasına stimul yaradan ən ciddi amillərdən biridir. Elə isə qadın – ana kimdir? Gəlin, bu barədə dərindən düşünək…

**“Xalq qəzeti“.-**2009.-1 may.-N 93.-S.3.

## TARİXİN GEDİŞİNİ DƏYİŞƏN ŞƏXSİYYƏT: HEYDƏR ƏLİYEV

**İlham Abbasov,**
Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının prorektoru -hüquq elmləri namizədi.
Baş ədliyyə müşaviri

**Sovetlər dönəmində hakim ideologiya olan kommunist ideologiyası və fəlsəfəsi öyrədirdi ki, şəxsiyyət tarixi deyil, tarix şəxsiyyət yaradır. Lakin ümummilli lider Heydər Əliyev kimi şəxsiyyətin həyat və fəaliyyətinin, gördüyü işlərin öyrənilməsi göstərir ki, tarixdə ayrı-ayrı şəxsiyyətlər müəyyən xalqın taleyində həlledici rol oynaya bilər, ictimai hadisələrin axarını dəyişə bilər. Çağdaş Azərbaycan tarixinin keşməkeşli sərt döngələrində Heydər Əliyev fenomeninin xalqının taleyində oynadığı müsbət rol şəksiz və danılmazdır.**

Sovetlər birliyi süqut etdikdən sonra xalqımız, digər MDB ölkələrinin xalqları kimi, öz milli müqəddəratlarını sərbəst təyin etmək, milli dövlət quruculuğunu yaradıb inkişaf etdirmək imkanı əldə etdi.

Azərbaycan xalqının müstəqillik əldə etməsində, daha doğrusu, 1918-ci ilin 28 mayında əldə etdiyi tarixi müstəqilliyini bərpa etməsində 1990-cı illərin əvvəllərində təqiblərə və kütləvi cəza tədbirlərinə məruz qalmalarına baxmayaraq keçmiş SSRİ-nin yeritdiyi müstəmləkəçilik siyasətinə qarşı çağdaş milli azadlıq hərəkatlarının da rolu az olmamışdır.

Ümummilli lider Heydər Əliyev demişdir: “Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir”.

Azərbaycan Respublikası 18 oktyabr 1991-ci ildə öz tarixi dövlət müstəqilliyini bərpa etdikdən sonra naşı adamların yüksək vəzifələrə təyin olunmaları, 1969-1982-ci illərdə ümummilli lider Heydər Əliyevin respublikaya rəhbər etdiyi dövrdə ictimai-siyasi həyatımızın bütün sahələrində əldə edilmiş nailiyyətlərin qorunub saxlanması əvəzinə dağıdılması, düzgün olmayan qərarların qəbul edilməsi, dövlətin idarə olunmasında səriştəsizliyə yol verilməsi, qanunsuz silahlı dəstə və birləşmələrin özbaşınalıqları ölkəni idarəolunmaz bir vəziyyətə, başlıcası isə ölkəni vətəndaş müharibəsi həddinə çatdırdı.

Müqəddəs torpaqlarımızın bütövlüyünü qorumaq üçün mübarizə Bakıda hakimiyyət uğrunda mübarizə ilə əvəz edildi. Qoşun hissələri döyüş bölgələrindən çıxarılıb Bakıya istiqamət aldı. Nəticədə torpaqlarımız düşmən tapdağı altında qaldı, bir milyondan artıq soydaşımız öz doğma el-obasından didərgin düşərək məcburi köçkün və qaçqına çevrildi. 1993-cü ilin iyun ayında isə ölkə vətəndaş müharibəsi həddinə çatdı, respublikanın parçalanmaq, müstəqilliyini birdəfəlik itirmək təhlükəsi yarandı.

Daxili didişmələr, anarxiya, ümummilli mənafeyin şəxsi ambisiyalara tabe edilməsi dövlət quruculuğuna böyük zərbə vurdu. Ölkədəki bu vəziyyəti kənardan yaxşı izləyən və bundan bacarıqla istifadə edən düşmənlərimiz və onların havadarları, bəzi xarici dövlətlər ayrı-ayrı hərbi və təxribatçı dəstələrin köməyi ilə böhranı daha da dərinləşdirir, müstəqilliyimizi ciddi təhlükə altında qoyurdular.

İctimai fəlakətlə üz-üzə dayanmış xalqımız, respublika ictimaiyyəti yaxşı dərk edirdi ki, Vətəni bu təhlükədən yalnız Heydər Əliyev dühası, onun dövlətin idarə olunmasındakı zəngin təcrübəsi, dərin ağlı və zəkası, möhkəm iradəsi, mübarizliyi, millətin mənafeyinə sədaqəti, xalq işinə dərin məhəbbəti, torpağa bağlılığı qurtara bilər.

Belə bir ağır vəziyyətdə xalq son ümid yeri kimi öz böyük oğluna – Heydər Əliyevə müraciət etdi. Xalqın çağırışlarını, o zamankı iqtidarın dəfələrlə etdiyi xahişlərini nəzərə alaraq ümummilli lider Heydər Əliyev 1993-cü ilin iyun ayının 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkə daxilində sabitliyin əsası qoyuldu, on dörd ildən artıq davam edən atəşkəsə nail olundu, “Əsrin müqaviləsi” imzalandı, Bakı-Tbilisi-Ceyhan neft ixracı boru kəmərinin faktiki tikintisinə başlandı və hazırda bu neft kəməri artıq istifadəyə verilmişdir.

Məhz xalqın böyük oğlu Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda illərlə davam edən anarxiyaya, başıpozuqluğa, siyasi hakimiyyətsizliyə, etnik separatçılığa, iddialı siyasətbazların naşı eksperimentlərinə, hərbiləşmiş cinayətkar dəstələrin qətl və qarətlərinə, özbaşınalıqlarına son qoyuldu.

Böyük şəxsiyyətin siyasi müdrikliyi, uzaqgörən siyasəti sayəsində artıq əldən getməkdə olan müstəqilliyimiz, milli azadlığımız qorunub saxlanıldı və daha da möhkəmləndirildi.

Xalqın birliyinə, dəstəyinə arxalanan ümummilli lider Heydər Əliyev Konstitusiya səlahiyyətlərindən istifadə etməklə, nəinki dövlət çevrilişinə cəhd cinayətlərinin qarşısını aldı, həm də silahlı yolla hakimiyyəti ələ keçirmək cəhdlərinə birdəfəlik son qoydu.

Yalnız bunlardan sonra Heydər Əliyevin sədrliyi ilə yaradılmış komissiyanın hazırladığı Konstitusiya layihəsinin 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilməsi isə müstəqillik yoluna qədəm qoymuş respublikamızın tarixində ən parlaq səhifələrindən biridir.

Müstəqil dövlətimizin ilk Konstitusiyasını-dövlətin ən yüksək hüquqi qüvvəyə malik qanununun preambulasında göstərilir ki, Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət quruculuğunu inkişaf yolu seçmişdir.

Azərbaycan Respublikası Konstitusiyanın təhlili göstərir ki, konstitusiya hüquqi demokratik dövlət quruculuğu prinsipinin mahiyyətindən irəli gəlməklə, cəmiyyətdə qanunun aliliyinə xidmət edir. Konstitusiyanın maddələrinin üçdə biri insan və vətəndaş hüquq və azadlıqlarına həsr edilmiş, Konstitusiyanın 12-ci maddəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi elan edilmişdir.

Hüquqi dövlət quruculuğu şəraitində dövlət və vətəndaş paritet əsaslarla çıxış edir, vətəndaş dövlət qarşısında, dövlət də vətəndaş qarşısında məsuliyyət daşıyır. Ümummilli lider Heydər Əliyevin dediyi kimi, hüquqi dövlətdə xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır.

Hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yoluna qədəm qoymuş respublikamızda ölkə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizin ictimai-siyasi, sosial həyatının bütün sahələrində köklü islahatlar aparılmış və hazırda bu islahatlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ümummilli lider Heydər Əliyev 1969-1982-ci illərdə respublika rəhbəri olarkən, tutduğu vəzifəsindən asılı olmayaraq, mərkəzi komitə katibi və raykom katibi də daxil olmaqla, heç bir vəzifəli şəxsin qanunsuz hərəkətini bağışlamırdı. Təbiətən hüquq pozuntularına və qanunsuzluğa, xüsusilə vəzifədən sui-istifadə hallarına qarşı barışmaz mövqe tutan respublika rəhbəri bütün fəaliyyəti dövründə belə hallara qarşı prinsipial mövqeyini heç vaxt dəyişməmiş və bunu tabeliyində olan bütün vəzifəli şəxslərdən tələb etmişdir.

Sovetlər dönəmində mövcud qaydaya görə rayon hüquq mühafizə orqanlarının rəhbəri təyin ediləcək namizədi respublika partiya təşkilatının rəhbəri şəxsən qəbul edir, sonra isə bu məsələ respublika partiya təşkilatı Mərkəzi Komitəsinin katibliyində müzakirə edilirdi. 1980-cı ilin noyabr ayının üçüncü ongünlüyü olardı. O zamankı Qutqaşen, indiki Qəbələ rayon prokuroru vəzifəsinə təyin edilməzdən əvvəl bir neçə həmkarımla birlikdə ümummilli lider Heydər Əliyevin qəbulunda olduq. Bu böyük şəxsiyyət bizi olduqca səmimi qarşıladı və təxminən iyirmi dəqiqəlik nəsihətamiz çıxışı ilə bizə dəyərli tövsiyələrini verdi. Həmin çıxışda aşağıdakı cümlələr indiki kimi yadımdadı və onları oxuculara çatdırıram. Ümummilli lider Heydər Əliyev demişdi: “Siz rayon partiya komitələri birinci katiblərinin köməkçilərisiniz. Əl-ələ verib yerlərdə qayda-qanun yaradın. Lakin bu o demək deyildir ki, siz birinci katiblərin qanunsuz hərəkətlərinə göz yummalısınız, çalışın onları başa salın, əgər bu alınmasa o zaman bizə-Mərkəzi Komitəyə müraciət edin”. Bəli, ulu öndərin bu sözlərindən ürəklənərək təyinat aldıqdan sonra inamla xidmət yerlərinə qayıtdıq. Təvazökarlıqdan kənar olsa da bildirirəm ki, ulu öndərin bu tövsiyələrinə bütün xidmət dövrümdə əməl etdim.

Bundan əvvəl də bir dəfə ümummilli lider Heydər Əliyevin qəbulunda olmaq mənə nəsib olmuşdu.

Hələ 60-cı illərdə keçmiş Sovetlər Birliyi məkanında ölkəmiz müttəfiq respublikaların sırasında geridə qalanların cərgəsində idi. İqtisadiyyatın müxtəlif sahələrinə dair dövlət planları kəsirlə yerinə yetirilir, qanunçuluğun və dövlət intizamının pozulması faktları adi hal almış, ictimai həyatda laqeydlik və biganəlik baş alıb gedirdi, bir sözlə, ictimai-siyasi həyatın bütün sahələrində gerilik açıq-aşkar özünü göstərirdi.

Bakı nefti istər Birinci, istərsə də İkinci Cahan müharibələrində dünyada diqqəti cəlb etsə də, ötən əsrdə 60-cı illərə qədər keçmiş Sovetlər Birliyi məkanında respublikamızı, xalqımızı demək olar ki, tanımırdılar. Lakin 14 iyul 1969-cu il-də Heydər Əliyev respublika partiya təşkilatının rəhbəri seçildikdən sonra vəziyyət əsaslı surətdə dəyişdi. Artıq yetmişinci illərin əvvəllərində ölkənin iqtisadiyyatının, o cümlədən sənaye və kənd təsərrüfatının sıçrayışlı inkişafı başladı. Ümumiyyətlə, Heydər Əliyevin gərgin əməyi, səmərəli fəaliyyəti nəticəsində ölkənin sənayesində, kənd təsərrüfatında, bir sözlə, iqtisadiyyatın bütün sahələrində, elm-tədris sahəsində, incəsənət və mədəniyyət sahəsində, sosial sahədə, ümumiyyətlə ictimai-siyasi həyatımızın bütün sahələrində indiyə kimi görünməmiş nailiyyətlər əldə edildi.

Heydər Əliyev keçmiş Sovetlər Birliyi dövründə Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifələrində işlədiyi müddətdə də respublikamızın inkişafı naminə öz qayğısını əsirgəməmiş, kommunist rejiminin qadağalarına, rəsmi Moskvanın təzyiqlərinə baxmayaraq, ölkəmizin daha da inkişafı naminə sovetlər dövründə nə mümkündürsə onu etmişdir.

Bu gün Bakını bəzəyən ən möhtəşəm binalar və digər tikililər, məhz, Heydər Əliyevin respublika-ya rəhbərlik etdiyi dövrdə inşa edilmişdir. Respublika Sarayı (indiki Heydər Əliyev Sarayı), “Gülüstan” Sarayı,

Bakı Kondisionerlər zavodu, Bakı Metropoliteni stansiyalarının böyük əksəriyyəti, Beynəlxalq hava limanı və s. kimi, nəhəng tikililər həmin illərdə inşa edilmiş və istifadəyə verilmişdi. Lakin Heydər Əliyev 1982-ci ilin noyabr ayında Sov.İKP Siyasi Bürosunun üzvü seçilib SSRI Nazirlər Soveti Sədrinin birinci müavini təyin edilərək Moskvaya işə dəyişildikdən sonra respublikada əldə olunmuş nailiyyətlər nəinki qorunub saxlanmış və inkişaf etdirilmiş, əksinə, qazanılmış nailiyyətlər dağıdılmağa başlanmışdır.

Ölkə rəhbərliyinin yüksək liqasına daxil olan ümummilli lider Heydər Əliyevin zəngin təcrübəsi, tükənməz enerjisi və iş qabiliyyəti, prinsipial mövqeyi nəzərə alınaraq, keçmiş Sovetlər Birliyinin 17 nazirliyinə, o cümlədən nəqliyyat nazirliklərinə, əsrin tikintisi hesab edilən Baykal-Amur magistralı tikintisinə rəhbərlik ona həvalə edilmişdi və o, bu vəzifələrin öhdəsindən layiqincə gəlirdi.

Xatirimdə qalan bir faktı da oxucuların nəzərinə çatdırmaq istəyirəm. 1982-ci ilin fevral ayı idi. O zaman Moskvada olan ümummilli lider Heydər Əliyevin keçmiş SSRİ-nin Memarlar İttifaqında yaradıcı ziyalılarla görüşü keçirilirdi. Görüşdə ümummilli lider Heydər Əliyevin dərin məzmunlu, təmiz, aksentsiz rus dilində etdiyi çıxışı o dövrdə yaradıcı ziyalılar tərəfindən yüksək qiymətləndirilmiş, onların dərin marağına və keçmiş Sovetlər İttifaqında böyük ictimai əks-sədaya səbəb olmuşdu.

Dahi şəxsiyyət Heydər Əliyev bütün fəaliyyəti boyu demokratik prinsiplərə sadiq olmuşdur. O, 1998-ci ilin fevral ayında qanunvericilik təşəbbüsü qaydasında ölüm cəzasının cəzalar sistemindən çıxarılması üçün Azərbaycan Respublikası Milli Məclisinə müraciət etmiş və Milli Məclisin qərarı ilə cinayət qanunvericiliyinə dəyişiklik edilərək müstəsna cəza tədbiri-ölüm cəzası Şərqdə ilk dəfə olaraq cinayət cəzaları sistemindən çıxarılmışdır.

Ulu öndər Heydər Əliyev həmişə mənəvi dəyərlərə xüsusi diqqət və qayğı göstərmiş və 13 avqust 2001-ci il tarixdə radio və televiziya ilə bəyanatında demişdir: "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət ənənələri-mizlə fəxr edirik". Azərbaycan Respublikasının axırıncı Sovet Konstitusiyası 21 aprel 1978-ci il tarixdə qəbul edilərkən, Moskvanın qadağalarına və təzyiqlərinə baxmayaraq, Konstitusiya layihəsini hazırlayan komissiyanın sədri, respublikanın o zamankı rəhbəri ümummilli lider Heydər Əliyevin prinsipial mövqeyi nəticəsində Azərbaycan dilinin dövlət dili elan olunması barədə Konstitusiyaya 73-cü maddə daxil edildi. Bu həmin dövr üçün çox cəsarətli və qətiyyətli bir addım idi.

Təəssüflər olsun ki, dövlət dili haqqında məsələ 1992-ci ilin dekabrın 22-də Azərbaycanın Milli Məclisində müzakirə edildi və dövlət dilinin adının dəyişdirilməsini nəzərdə tutan antikonstitusion qanun qəbul edildi.

Yalnız bu ədalətsizlik ümummilli lider Heydər Əliyevin sədrliyi ilə layihəsi hazırlanmış 12 noyabr 1995-il tarixdə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilərkən, Azərbaycan dövlətinin ilk Konstitusiyasında aradan qaldırıldı. Konstitusiyada dövlət dilinin Azərbaycan dili olması qanunvericilik yolu ilə təsbit olundu.

25 dekabr 1991-ci ildə Azərbaycan Respublikasının Ali Sovetinin Milli Şurası tərəfindən "Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında" Qanun qəbul etdi. Lakin həmin vaxt Qanunun icra mexanizmi müəyyən edilmədiyindən, əslində, həmin Qanun faktiki olaraq, on ilə yaxın müddətdə icra-sız qaldı. Yalnız ümummilli lider Heydər Əliyevin 18 iyun 2001-ci il tarixdə imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanından sonra 1 avqust 2001-ci il tarixdən respublikanın bütün nazirlik, idarə, təşkilat və müəssisələrində kargüzarlıq, faktiki olaraq, latın qrafikalı əlifba ilə aparılmağa başlandı.

Bu gün Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın mənəvi dəyərlərimizə qarşı həssaslığı, mənəvi dəyərlərimizin, o cümlədən xalqımızın muğam sənəti kimi zəngin xalq sənətinin qorunub saxlanması və inkişaf etdirilməsi, son illərdə ölkədə Mehriban xanımın təşəbbüsü ilə yüzlərlə məktəb və digər uşaq-tərbiyə müəssisələrinin tikintisi və yenidən qurulması, xeyriyyəçilik tədbirlərinin həyata keçirilməsi də məhz, ulu öndər Heydər Əliyevin mənəvi dəyərlərimizə münasibətindən qaynaqlanır.

Ümummilli lider Heydər Əliyev demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyi-nə ümidlər bəsləyirəm".

Hazırda müstəqil Azərbaycan dövləti qarşısında həllini gözləyən hansı vəzifələr durur? Ümummilli lider Heydər Əliyevin çıxışlarında, görüşlərində söylədiyi fikirlərə əsaslanaraq belə nəticəyə gəlmək olar ki, hüquqi dövlət quruculuğu yolunda respublikamızın qarşısında duran vəzifələri təxmini olaraq: müstəqil dövlətçiliyimizin daha da möhkəmləndirilməsi və ərazi bütövlüyünün təmin edilməsi; ölkədə aparılan hüquqi islahatların uğurla başa çatdırılması; milli iqtisadiyyatımızın hərtərəfli inkişafına nail olunması, bu işdə xarici investorların geniş iştirakına şərait yaradılması; insan və vətəndaş hüquq və azadlıqlarının daha etibarlı

qorunmasını təmin etmək məqsədilə demokratiyanın daha da inkişaf etdirilməsinin, ölkəmizin bütün sahələrdə dünya birliyi ölkələrinə inteqrasiyasının gücləndirilməsinin təmin edilməsi; azad bazar iqtisadiyyatı şəraitində əhalinin iş yerləri ilə təmin olunması, iqtisadi islahatların uğurla başa çatdırılması nəticə-sində əhalinin maddi rifah halının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsindən ibarətdir.

Sonda ölkə başçısı cənab İlham Əliyevə Azərbaycan dövlətçiliyinin daha da möhkəmləndirilmə-si, müstəqil xarici siyasətin həyata keçirilməsi, ərazi bütövlüyümüzün bərpa edilməsi, ölkənin iqtisadiyyatının inkişaf etdirilməsi, əhalinin sosial-iqtisadi vəziyyətinin daha da yüksəldilməsi, ölkədə aparılan iqtisadi və hüquqi islahatların uğurla başa çatdırılması yolunda səmərəli fəaliyyət və müvəffəqiyyətlər arzu edirik.

**"İki sahil".-**2009.-2 may.-N.81.-S.3.

## UĞURLU XARİCİ SİYASƏT KURSUNUN BANİSİ

**Əli HƏSƏNOV,**
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının şöbə müdiri,
YAP İdarə Heyətinin üzvü

***Tarixən Azərbaycanın əlverişli geostrateji və coğrafi mövqeyi ona həm Şərq-Qərb, həm də Şimal-Cənub əlaqələrində əsas körpü kimi çıxış etməyə imkan verib. Lakin müstəqil dövlətin olmaması və müstəqil siyasətin yürüdülməməsi səbəbindən bu əlverişli mövqedən Azərbaycanın maraqlarına uyğun şəkildə istifadə etmək mümkün olmamışdı Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlişindən sonra respublikamız bu imkandan yararlanmağa başlamışdır. Bu gün ölkənin istər regionda, istərsə da ümumilikdə dünyada tutduğu mövqe və rola nəzər salanda tam əminliklə söyləmək olar ki, Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan öz tarixi missiyasını yerinə yetirmək imkanı əldə edib.***

Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra respublikanın beynəlxalq əhəmiyyətli qlobal nəqliyyat-kommunikasiya xətlərinin kəsişdiyi əlverişli coğrafi məkanda yerləşməsini nəzərə alaraq, Azərbaycanda bu sahənin yenidən qurulması və modernləşdirilməsini iqtisadi inkişaf strategiyasının əsas prioritetlərindən biri kimi müəyyənləşdirdi. Yeri gəlmişkən, bu strateji siyasi kurs Azərbaycan Prezidenti İlham Əliyevin də son 5 il ərzində qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrinin gerçəkləşdirilməsi istiqamətindəki fəaliyyətinin əsasını təşkil edib. İlham Əliyevin 24 noyabr 2004-cü il tarixli “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” fərmanı və 11 fevral tarixli “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair” Dövlət Proqramında da nəqliyyat-kommunikasiya şəbəkəsinin modernləşdirilməsinə və yenidən qurulmasına xüsusi diqqət ayrılıb. Qeyd edilməlidir ki, 2004-cü ildən etibarən Azərbaycan hökuməti daxili nəqliyyat-kommunikasiya infrastrukturunun inkişaf etdirilməsi, ölkəni xarici dövlətlərlə birləşdirən quru, dəniz, hava və dəmiryolu şəbəkələrinin, yol və limanların, nəqliyyat və daşıma vasitələrinin yeniləşdirilməsi və yenidən qurulması üçün iri investisiya layihələri həyata keçirməyə başlayıb. Təkcə 2008-ci ildə ölkədə yol-nəqliyyat və digər bu yönlü infrastrukturun genişləndirilməsi və yenidən qurulmasına 2 milyard manatdan artıq vəsait ayrılıb.

Vaxtilə regionda və ümumilikdə dünyada gedən qlobal prosesləri nəzərə alan ulu öndər Heydər Əliyev Azərbaycanın beynəlxalq inteqrasiya prosesində iştirakı baxımından vacib olan transmilli yükdaşımaya, nəqliyyat-kommunikasiya dəhlizlərinin yaradılması prosesinə xüsusi önəm verirdi və Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrini birmənalı şəkildə dəstəkləyirdi.

Məlum olduğu kimi, nəqliyyat dəhlizlərini və kommunikasiyalarını bəzən həyat arteriyası adlandırırlar. Çünki bunlar olmadan, zəngin təbii resurslara malik dövlətlər belə iqtisadiyyatının dirçəlişi və inkişafını təmin edə, dünya ölkələri ilə sərbəst ticarət əlaqələri qura bilməz. Odur ki, nəqliyyat-yükdaşıma sisteminə nəzarət etmək xarici ticarətə təsir imkanlarını əlində saxlamaq baxımından dünyada bu günün əsas geostrateji tələblərindəndir.

Təsadüfi deyil ki, müxtəlif geosiyasi güc mərkəzləri arasında gedən beynəlxalq rəqabət yalnız təbii ehtiyatlar deyil, həm də bu ehtiyatları dünya bazarlarına çıxaracaq vasitələr – nəqliyyat dəhlizləri və kommunikasiyalar uğrunda aparılır.

SSRİ-nin dağılması və vaxtilə Sovet İttifaqının tərkibinə daxil olan respublikaların müstəqillik qazanmasından sonra Şərq-Qərb nəqliyyat-kommunikasiya və enerji dəhlizləri məsələsi daha aktual xarakter aldı. Regionu nəzarətində saxlamağa və alternativ enerji dəhlizlərinin yaranmasına mane olmağa çalışan Rusiyanın müqavimətinə baxmayaraq, Amerika Birləşmiş Ştatları və Avropa İttifaqı bu istiqamətdə səylərini aktivləşdirdilər. Onlar TRASEKA adlanan layihə çərçivəsində Avropanı Asiya ilə birləşdirən nəqliyyat-kommunikasiya sisteminin qurulmasına, şərti olaraq “Böyük İpək yolu” adlandırılan transmilli layihənin həyata keçirilməsinə başladılar. Bu gün rusiyalı analitiklər bildirirlər ki, Qərb, ilk növbədə isə Birləşmiş Ştatlar, Rusiyadan yan keçən qlobal nəqliyyat dəhlizi yaratmaqla, faktiki olaraq, Moskvanın Avrasiyadakı monopoliyasına son qoydular. 1995-ci ildə ABŞ-da nüfuzlu amerikalı siyasətçilər və politoloqların iştirakı ilə keçirilmiş konfransda açıq şəkildə bəyan edilib ki, “bu gün infrastruktur dəhlizlərinə nəzarət, dünya siyasətində dominantlıq üçün əsas vasitədir”.

Layihələrin ən önəmlilərindən biri, məhz Azərbaycanın mühüm rol oynadığı TRASEKA layihəsidir. Qeyd edək ki, bu, Avropa İttifaqının SSRİ dağıldıqdan sonra – 1991-ci ildən hazırladığı və maliyyələşdirdiyi TASİS proqramı çərçivəsində reallaşdırılan ən iri layihələrdən biridir. TASİS proqramı ilə Avropa İttifaqı yeni, müstəqil dövlətlərdə iş aparmaq, demokratik islahatlar keçirmək, bazar iqtisadiyyatı infrastrukturları yaratmaq, ölkələrarası ticarət, nəqliyyat, gömrük-keçid işlərini inkişaf etdirmək niyyətini ortaya qoymuşdu. Və məhz bu

proqram çərçivəsində 1993-cü ildə Brüsseldə Avropa İttifaqının təşəbbüsü ilə TRASEKA (Trans-Europe-Caucasus-Asia) layihəsi irəli sürüldü və Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Tacikistan və Ermənistan nümayəndələrinin iştirakı ilə onun müzakirəsi keçirildi. Müzakirənin nəticəsi olaraq imzalanmış "Brüssel bəyannaməsi"nə əsasən, qədim Şərq-Qərb "İpək yolu" dəhlizinin yeni şəraitdə bərpası, nəqliyyat-kommunikasiya infrastrukturlarının yenidən qurulması və inkişaf etdirilməsi qərara alındı.

Bu layihəni reallaşdırmaqda Avropa İttifaqı, ilk növbədə, müstəqil dövlətlərin alternativ nəqliyyat dəhlizləri vasitəsilə Avropa və dünya bazarlarına çıxışını təmin etmək, onların siyasi və iqtisadi cəhətdən ətraf ölkələrdən asılılığının qarşısını almaq, regional əməkdaşlığın möhkəmlənməsinə şərait yaratmaq və beynəlxalq maliyyə mərkəzlərinin regiona sərmayə qoyuluşunu həvəsləndirmək istəyirdi.

Azərbaycanın əlverişli coğrafi mövqeyi, bu nəqliyyat dəhlizinin əsas məntəqələrindən biri kimi çıxış etməsi, ümummilli lider Heydər Əliyevin Şərq-Qərb nəqliyyat-kommunikasiya və enerji dəhlizləri məsələsində tutduğu prinsipial mövqe və yürütdüyü uzaqgörən xarici iqtisadi siyasət, TRASEKA layihəsinin reallaşmasına mühüm töhfə verdi.

TRASEKA layihəsi üzrə ən mühüm tədbir – beynəlxalq konfrans da məhz Heydər Əliyevin diplomatik səyləri ilə 1998-ci ilin sentyabrında Bakıda keçirilib. Həmin konfransda 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndələri layihənin reallaşdırılmasının texniki və iqtisadi tərəflərini özündə əks etdirən "Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas saziş" (Əsas Saziş) adlanan mühüm sənədi imzaladılar.

Bu sənədin ərsəyə gəlməsində də Heydər Əliyevin əvəzsiz xidmətləri olub. Təsadüfi deyil ki, TRASEKA hökumətlərarası komissiyasının daimi katibliyinin mənzil-qərargahı da Bakı şəhərində yerləşir. 21 fevral 2001-ci ildən Bakıda fəaliyyətə başlayan TRASEKA hökumətlərarası komissiyası daimi katibliyinin ofisi "Böyük İpək yolu" boyunca hərəkət edən beynəlxalq yüklərin daşınma və hərəkətini tənzimləmək, Əsas Sazişə qoşulan ölkələrdə qanunvericilik və maliyyə-iqtisadi mühitlə bağlı məsələlərin həll edilməsinə kömək məqsədilə yaradılıb. Avropa-Qafqaz-Asiya ölkələri arasında yüklərin daşınmasını təmin edən bu layihə keçən illərdə Azərbaycan iqtisadiyyatının inkişafında, nəqliyyat infrastrukturunun formalaşmasında ciddi rol oynayıb.

Şərqlə Qərb arasında körpü rolunu oynayan Azərbaycanın Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsində aparıcı yer tutması respublikanın dünya ölkələri ilə inteqrasiyasının daha da dərinləşməsinə xidmət edir. Bu isə nəinki iqtisadi, həm də siyasi sabitlik və təhlükəsizlik baxımından böyük əhəmiyyətə malikdir.

Bundan başqa, TRASEKA layihəsi Avropa ilə Asiya arasında nəqliyyat yolunu qısaltmaqla külli miqdarda vəsaitə qənaət etmək imkanı yaradır. Bu gün Avropa ilə Asiya arasında ticarət dövriyyəsinin həcmi 2 trilyon dolları ötür, nəqliyyat xərcləri isə ildə 200 milyard dollara çatır. Nəzərə alsaq ki, TRASEKA layihəsi çərçivəsində malların daşınması, hazırda Avropa ilə Cənubi Asiyanı birləşdirən Süveyş kanalından 20 gün tez başa gəlir, onda yaxın gələcəkdə Azərbaycanın dünyanın əsas tranzit ölkələrindən birinə çevriləcəyini proqnozlaşdırmaq olar.

2009-cu ildən Avropa Komissiyası TRASEKA proqramı çərçivəsində üç layihənin reallaşdırılmasına başlayıb. Bunlardan birincisi "Qərbi MDB və Qafqaz ölkələri üçün beynəlxalq logistika mərkəzləri" layihəsidir. Bu layihənin əsas vəzifəsi logistika imkanlarının, şəbəkələrin və multimodal nəqliyyatın qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi yolu ilə beynəlxalq ticarət və malların TRASEKA dəhlizi ilə hərəkəti-nə yardım etməkdir. Layihə çərçivəsində TRASEKA dəhlizi üzrə logistika mərkəzləri şəbəkəsinin yaradılmasını nəzərdə tutan maliyyə, texniki, ekoloji və institusional şəraitin yaradılması, tədqiqatların aparılması planlaşdırılır. Bu layihə Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova və Ukraynanı birbaşa, Bolqarıstan, Rumıniya və Türkiyəni isə bilavasitə əhatə edəcək.

Bundan əlavə, "TRASEKA ölkələrində aviasiya sahəsində ictimai və texniki təhlükəsizlik" layihəsinin gerçəkləşdirilməsinə başlanılıb. Reallaşma müddəti 24 ay olan bu layihə Azərbaycan, Ermənistan, Bolqarıstan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Rumıniya, Tacikistan, Türkiyə, Ukrayna və Özbəkistanı əhatə edəcək. Məqsəd Avropa İttifaqı ilə qonşu ölkələrdə, həmçinin Mərkəzi Asiya ölkələrində mülki aviasiya sahəsində beynəlxalq və Avropa standartlarına uyğun hava nəqliyyatının ictimai və texniki təhlükəsizliyinin təkmilləşdirilməsidir.

Nəhayət, reallaşdırılmasına başlanılan üçüncü layihə "Qara və Xəzər dənizlərində dəniz magistralları" layihəsidir. Beş ölkəni – Azərbaycan, Gürcüstan, Qazaxıstan, Türkmənistan və Ukraynanı əhatə edən layihədə məqsəd Qara dəniz və Xəzər dənizində qarşılıqlı fəaliyyət şəbəkəsinin təkmilləşdirilməsi və multimodal nəqliyyat yolu ilə Avropa-Qara dəniz regionu – Qafqaz-Mərkəzi Asiya dəhlizində ticarətə və nəqliyyata yardımın göstərilməsidir. Əsas vəzifə Qara dəniz və Xəzər dənizi hövzəsi ölkələrini Avropa İttifaqının

genişlənmiş ərazisi ilə birləşdirən "Dəniz magistralları" konsepsiyasına uyğun əlverişli intermodal yük nəqliyyatına təsir və dəstək göstərməkdən ibarətdir. Layihə başlıca olaraq dəmiryolu, avtomobil və çox güman ki, İliçiyevck-Odessa-Poti-Bakı-Aktau marşrutu üzrə daxili su nəqliyyatını nəzərdə tutur.

Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi tranzit-keçid dəhlizləri siyasəti sahəsində əldə olunmuş ən böyük uğurlardan biri də Bakı-Tbilisi-Qars dəmiryolunun inşasıdır. Bu layihə ciddi regional əhəmiyyətə malik olmaqla yanaşı, XXI əsrdə Asiya ilə Avropanı birləşdirən ən mühüm transmilli nəqliyyat dəhlizinə çevriləcək və regionda təhlükəsizliyin daha da artırılmasına xidmət edəcək.

Bakı-Tbilisi-Qars dəmiryolu layihəsi, ilk növbədə, TRASEKA-nın rəqabət qabiliyyətliliyini artırmaq üçün nəqliyyat daşımalarına tətbiq olunan rüsum və tariflərin rasional səviyyəsinin müəyyən edilməsini və ucuzlaşmasını təmin edəcək.

Dəmiryolunun tikintisi layihəsi üzrə üçtərəfli Azərbaycan-Gürcüstan-Türkiyə deklarasiyası 2005-ci il mayın 25-də Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri tərəfindən imzalandı. Azərbaycanın təkidi ilə Ermənistan bu layihədən kənarda saxlanıldı ki, bu da dərhal bəzi beynəlxalq təşkilatlar və dövlətlərin bu layihənin reallaşmasına mane olmaq üçün hərəkətə keçməsini şərtləndirdi. Lakin Azərbaycan rəhbərliyinin prinsipiallığı və qətiyyəti bu dəfə də öz nəticəsini verdi və Prezident İlham Əliyevin diplomatik səyləri nəticəsində 2007-ci ilin fevralında Tbilisidə bu dəmiryolunun tikintisinə dair çərçivə sazişi imzalandı.

Layihə çərçivəsində 105 km uzunluğunda yeni dəmiryolu (76 km Türkiyə və 29 km Gürcüstan ərazisindən keçməklə) qurulacaq. Bundan əlavə, Gürcüstanda dəmiryolunun 183 km-lik hissəsinin re-konstruksiya edilməsi, qatarların Gürcüstandakı mövcud dəmiryollarından sonra Avropa dəmiryollarında hərəkət edə bilməsi üçün Axalkalakidə keçid məntəqəsinin tikilməsi nəzərdə tutulur.

422 milyon, infrastrukturla birlikdə isə 600 milyon dollar həcmində dəyərləndirilən bu layihə reallaşdırılandan sonra yüklərin Türkiyəyə və Avropanın şimalı ilə Aralıq dənizi regionuna, Rusiya və Qazaxıstandan Azərbaycan vasitəsilə Gürcüstana daşınmasına imkan yaranacaq. Analitiklərin fikrincə, ilk vaxtlar illik yük buraxılışı 5 milyon ton olacaq bu dəmiryolu ilə üç ildən sonra 10-15 milyon ton, tam gücü ilə işləməyə başlayanda isə 20 milyon ton yük daşına biləcək.

2007-ci ilin fevralında Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin imzaladıqları yekun razılaşmadan sonra isə dəmiryolunun inşasına başlanılıb.

Göründüyü kimi. Azərbaycan, bu dəmiryolu layihəsinin, demək olar ki, lokomotivi hesab olunur. Onun maliyyə dəstəyi nəticəsində həm Türkiyə sərhədindən Gürcüstana, həm də Gürcüstandan Azərbaycan sərhədinə qədər tikilməsi və modernləşdirilməsi nəzərdə tutulan dəmiryol layihəsi artıq reallaşmağa başlayıb. Yaranan maliyyə problemləri də birbaşa Azərbaycanın köməyi ilə həll olunur. Məsələn, Azərbaycan dəmiryolunun Gürcüstandan keçən hissəsinin tikintisinə 220 milyon ABŞ dolları həcmində kredit ayırıb. İllik 1 faizlə 25 il müddətinə verilən bu krediti Gürcüstan dəmiryolu işə düşəndən sonra özünün tranzit gəlirləri hesabına ödəyəcək.

Ulu öndər Heydər Əliyev Azərbaycanın regionda və dünyada aparıcı mövqeyini bir daha təsdiqləyən və ölkəmizin iqtisadi və siyasi təhlükəsizliyi baxımından mühüm rol oynayan amil kimi enerji dəhlizləri və daşımaları məsələsinə də xüsusi önəm verirdi.

Heydər Əliyevin neft strategiyasının ən böyük uğuru Azərbaycanın enerjidaşıyıcılarını dünya bazarına çıxaracaq yeni, alternativ əsas ixrac boru kəməri – Bakı-Tbilisi-Ceyhan layihəsinin reallaşması oldu.

Məsələnin aktuallığı həm Bakı-Novorossiysk və Bakı-Tbilisi-Supsa neft kəmərlərinin Azərbaycanın getdikcə artan ehtiyaclarını ödəyə bilməməsi, həm də birinci kəmərin geosiyasi baxımdan rəsmi Bakıya təzyiq vasitəsinə çevrilə biləcəyi ilə bağlı idi.

1999-cu il noyabrın 18-də İstanbulda keçirilmiş ATƏT-in sammiti çərçivəsində "Bakı-Tbilisi-Ceyhan" əsas ixrac boru kəməri vasitəsilə Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən Xəzər dənizindən çıxarılan əsas xam neftin nəqli haqqında" Sazişin ABŞ Prezidenti Bill Klintonun iştirakı ilə Azərbaycan Prezidenti Heydər Əliyev, Türkiyə Prezidenti Süleyman Dəmirəl və Gürcüstan Prezidenti Eduard Şevardnadze tərəfindən imzalanması region ölkələrinin strateji əməkdaşlığı və Avropaya inteqrasiyası sahəsində ciddi addım idi.

Bütün çətinliklərə və problemlərə baxmayaraq, 2002-ci il sentyabrın 18-də Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə dünyanın ən böyük enerji layihəsi olan BTC-nin əsası qoyuldu. 4 ildən sonra – 2006-cı il iyulun 13-də kəmər istifadəyə verildi.

Bununla da yalnız Azərbaycanın deyil, ümumilikdə regionun və Avropa məkanının enerji təhlükəsizliyinə xidmət edən strateji layihə əfsanədən gerçəkliyə çevrildi.

Qeyd edək ki, BTC-nin istismar müddəti 40 ildir, sonuncu 15 ili Azərbaycanın tam mülkiyyətinə keçəcək.

2007-ci il iyunun 16-da BTC layihəsinə rəsmən Qazaxıstan da qoşuldu. Həmin gün Almatıda Qazaxıstan və Azərbaycan prezidentləri Qazaxıstan neftinin Xəzər dənizi və Azərbaycan ərazisindən keçməklə Bakı-Tbilisi-Ceyhan vasitəsilə dünya bazarlarına çıxmasına dəstək və yardım barədə saziş imzaladılar. Bu razılaşma Qazaxıstan neftinin BTC ilə nəql olunması məqsədilə Aktau-Bakı sisteminin yaradılmasını nəzərdə tutur.

Qeyd edək ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri həm layihənin bilavasitə iştirakçısı olan dövlətlərin iqtisadi maraqlarını təmin edir, həm də hazırkı dövrdə son dərəcə aktual olan enerji təhlükəsizliyi probleminin həlli baxımından geniş imkanlar açır.

Məlum olduğu kimi, Qərb dövlətləri Xəzər hövzəsinə çıxış imkanı əldə etmək və neft idxalında alternativ imkanlar qazanmağa birqütblü enerji asılılığından azad olmaq üçün əsas vasitə kimi yanaşırlar. Bu amil Azərbaycanın Cənubi Qafqazdakı strateji mövqeyini və nüfuzunu daha da artırır, respublikanın Avratlantik məkana inteqrasiyası üçün geniş şərait yaradır.

Qeyd etmək lazımdır ki, layihənin yalnız Heydər Əliyevin qətiyyəti, prinsipiallığı və uzaqgörənliyi sayəsində baş tutduğunu onun bütün iştirakçıları etiraf edirlər. Kəmərə Azərbaycanın ümummilli liderinin adının verilməsi də təsadüfi deyil.

Beləliklə, Azərbaycan Qərbə alternativ enerjidaşımaları üçün imkan qazanaraq birqütblü boru kəməri asılılığından çıxmağı bacardı.

Bakı-Tbilisi-Ceyhandan sonra regionun ikinci ən böyük enerji layihəsi – Bakı-Tbilisi-Ərzurum qaz kəməri də olduqca strateji əhəmiyyətlidir. Özü də bu gün – Avropanın Rusiyadan enerji asılılığı mövzusunun son dərəcə aktuallaşdığı dövrdə onun əhəmiyyəti getdikcə daha da artır.

Kəmərin fəaliyyəti sayəsində Azərbaycan Qərbin mühüm qaz ixracatçısı və qlobal enerji təhlükəsizliyinin təminatçılarından birinə çevrilib.

Bakı-Tbilisi-Ərzurum boru kəməri Azərbaycan qazının “Şahdəniz” yatağından Türkiyə vasitəsilə Avropa bazarlarına nəqli üçün yaradılıb. Kəmərin uzunluğu 690 km-dir (442 km Azərbaycan his-səsi, 248 km Gürcüstan hissəsi). İlkin ötürmə qabiliyyəti ildə 7-8 milyard, maksimal ötürücülük imkanı isə 20 milyard kubmetr olan kəmər 2006-cı ildə istismara verilib. Artıq 2007-ci ilin sonundan Bakı-Tbilisi-Ərzurum boru kəməri ilə nəql olunan Azərbaycan qazı Türkiyə və İtaliya qaz sisteminin birləşməsi nəticəsində İtaliyaya ötürülməyə başlayıb.

Bakı-Tbilisi-Ərzurum qaz kəməri Azərbaycanın 1994-cü ildən başlayaraq həyata keçirdiyi enerji strategiyasının mühüm tərkib hissəsidir. Bu kəmər Cənubi Qafqazda strateji reallığı Azərbaycanın xeyrinə dəyişib, Türkiyə, Gürcüstan və Azərbaycanın enerji şəbəkələrini mərkəzləşmiş sistemə çevirib və nəhayət, Şərq-Qərb nəqliyyat dəhlizinin əhəmiyyətini xeyli artırıb.

Bakı-Tbilisi-Ərzurum kəməri yalnız regionun deyil, həm də Avropanın enerji təhlükəsizliyi məsələsində mühüm rol oynayan “Nabukko” layihəsinin əsasını təşkil edəcək. Yəni, belə demək mümkündürsə, “Nabukko”nun onurğa sütunu məhz Bakı-Tbilisi-Ərzurum qaz kəməri olacaq. Çünki gələcəkdə bu layihə Orta Asiya və Xəzər hövzəsi ölkələrinin qazını Yunanıstan, İtaliya və Avstriyaya çatdırmaq, “Nabukko” qaz kəmərinə birləşdirmək və geniş bir şəbəkə yaradılmasını nəzərdə tutur.

Avropa Azərbaycana enerji təhlükəsizliyi sahəsində etibarlı tərəfdaş kimi yanaşdığını daim nümayiş etdirib. Öz növbəsində, Prezident İlham Əliyev də ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu Azərbaycanın etibarlı tərəfdaş imicini bir qədər də möhkəmləndirib.

2006-cı ilin noyabrında Prezident İlham Əliyevin Belçikaya səfəri zamanı Azərbaycanla Avropa İttifaqı arasında enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq rəsmiləşdirilib. Noyabrın 7-də Prezident İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu Azərbaycan Respublikası və Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalayıblar. Sənəd Avropa İttifaqı ilə Azərbaycan arasında enerji tərəfdaşlığı münasibətlərini, Azərbaycanın Avropanın enerji bazarlarına daxil olmasını, Aİ-nin enerji təhlükəsizliyini və respublikamızda enerji menecmentini nəzərdə tutur.

Ekspertlər bu memorandumun imzalanmasından sonra Azərbaycanın Avro-panın enerji təhlükəsizliyinin təmin olunmasında, o cümlədən “Nabukko” layihəsinin reallaşmasında daha aktiv iştirak edəcəyini proqnozlaşdırdılar.

2008-ci ilin noyabrında Bakıda keçirilən IV Enerji Sammiti də enerji nəqli dəhlizlərinin yaradılmasının bütün dünyanın marağında olduğunu bir daha nümayiş etdirib. 21 ölkənin nümayəndələrinin və diplomatların, o cümlədən 6 dövlətin prezidentlərinin qatıldıqları sammitdə çıxış edənlər bir daha bildiriblər ki, “Nabukko” layihəsi Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında həyati əhəmiyyət daşıyır və Avropa İttifaqı ilə Azərbaycan bu istiqamətdə sıx əməkdaşlıq etməlidirlər.

Sammitin yekunlarına dair qəbul olunmuş Bəyannamədə qeyd olunur ki, sammit iştirakçıları enerji resurslarının hasilatçı, tranzit və istehlakçı ölkələri arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığın möhkəmlənməsinə və genişlənməsinə, regional investisiya enerji layihələrinin həyata keçirilməsi üçün zəruri əlverişli şərait yaradılmasına tərəfdar olduğunu təsdiq edirlər.

Bəyannamədə Xəzər hövzəsindən neftin və qazın dünya və Avropa bazarlarına çatdırılması yollarının şaxələndirilməsinə yönəlmiş siyasətin davam etdirilməsinin vacibliyi vurğulanıb, iştirakçı dövlətlərin tələbatını daha tam təmin etməkdən ötrü Azərbaycanın təbii qazının regional və Avropa bazarlarına nəqli və tranziti üçün çoxvektorlu infrastrukturun yaradılmasına aid layihələrin həyata keçirilməsinin dəstəklənməsi ifadə olunur.

“Nabukko” layihəsinin reallaşdırılması istiqamətində növbəti mühüm addım isə 2009-cu ilin yanvarında Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilmiş enerji sammiti oldu.

Budapeşt sammitində çıxış edən Prezident İlham Əliyev ölkəsinin Avropanın enerji təhlükəsizliyi məsələsində mühüm rol oynadığını, Azərbaycanın etibarlı tərəfdaş dövlət olduğunu və öz təbii sərvətlərini Xəzər hövzəsindən Avropaya nəql etdiyini bildirib. Bu layihə çərçivəsində yaxşı tərəfdaşlıq əlaqələrinin yaranacağına əmin olduğunu bildirən Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan Avropa İttifaqına və Avratlantik məkana inteqrasiyaya üstünlük verir və bu siyasət bundan sonra da davam etdiriləcək.

Qeyd edək ki, dəyəri 8 milyard avro olan və ildə təqribən 26-32 milyard kubmetr qaz ötürəcək “Nabukko” kəmərinin inşası 2014-cü ilədək yekunlaşmalıdır. “Nabukko” boru kəməri ilə 2012-ci ildə Azərbaycan, sonra Qazaxıstan və Türkmənistan qazının nəqli nəzərdə tutulur. Növbəti mərhələdə 2017-ci il üçün bu kəmərlə İran, İraq və Misir qazının nəqli də istisna olunmur.

“Nabukko” ilk qaz xəttidir ki, dünyanın bir çox regionu arasında əlaqə yaradacaq. Məlumat üçün bildirək ki, “Nabukko”nun uzunluğu 3300 kilometr olacaq. Kəmərin 2000 kilometri Türkiyə, 400 km-i Bolqarıstan, 460 km-i Rumıniya, 390 km-i Macarıstan, 46 km-i isə Avstriya ərazilərindən keçəcək.

Avstriyanın Baumqarten məntəqəsinə çatdırılacaq qaz həcmlərinin böyük bir hissəsi bu ölkənin ərazisindən keçərək Mərkəzi və Qərbi Avropaya nəql olunacaq.

Layihənin reallaşması istiqamətindəki maneələrdən danışarkən, ilk növbədə, kəmərin inşasının maliyyələşdirilməsi məsələsinə toxunulur. Bəzi ekspertlərin fikrincə, hazırda dünyanı bürümüş maliyyə böhranı fonunda, layihə üçün maliyyə tapılması problemli görünür. Lakin Budapeşt sammitində bu məsələyə də aydınlıq gətirilib. Belə ki, Avropa İnvestisiya Bankının və Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentləri də Avropa üçün mühüm əhəmiyyət kəsb edən bu layihənin maliyyələşdirilməsinə hazır olduqlarını bildiriblər.

Beləliklə, yaxın illərdə Azərbaycanın önəmli rol oynayacağı növbəti qlobal layihənin reallaşmasının şahidi olacağıq. Bu isə Azərbaycanın bölgənin enerji ehtiyatlarının dünya bazarına nəqlində strateji önəm daşıyan ölkə statusunu daha da möhkəmləndirəcək.

Bu gün Azərbaycanın Avropanın nəqliyyat-kommunikasiya, yükdaşımaları və enerji təhlükəsizliyində mühüm rol oynadığı hamı tərəfindən birmənalı etiraf olunur. Ümummilli lider Heydər Əliyevin yeni neft, nəqliyyat-kommunikasiya və enerji dəhlizlərinə dair strategiyasını inamla davam etdirən Prezident İlham Əliyevin diplomatik səyləri nəticəsində Azərbaycan regionda heç bir ölkədən enerji asılılığı olmayan, öz tələbatını ödəməyə qadir yeganə dövlət qismində çıxış edir.

***Artıq həm region ölkələri, həm də fövqəldövlətlər Prezident İlham Əliyevin dəfələrlə bəyan etdiyi “Azərbaycanın iştirakı olmadan regionda heç bir ciddi layihə gerçəkləşə bilməz” fikrini sübuta ehtiyacı olmayan fakt kimi qəbul edirlər.***

**“Azərbaycan”.**- 2009.- 5 may.- №96.- S. 4.

## BÖYÜK AZƏRBAYCANLI

**Musa QULUZADƏ,**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının şöbə müdiri,
Azərbaycan Yazıçılar Birliyinin üzvü.

Xalqımızın böyük oğlu Heydər Əliyevi Azərbaycanın-ulu tarixə malik bir məmləkətin səmasında daima parıldayan zaman keçdikcə daha da şəfəqlənən dan ulduzuna bənzətmək olar. Böyük bir həqiqəti-50 milyonluq Azərbaycan xalqı şərəf hissi ilə dərk edir ki, zamanın təkəri bizdən uzaqlaşdıqca Heydər Əliyev ucalığı, Heydər Əliyev böyüklüyü daha aydın görünür.

Vətənimizin, xalqımızın taleyində ötən əsrin 70-ci illərindən XXI əsrin əvvəllərinədək taleyüklü bir dövrdə öz adını əməlləri, cəsarətli addımları və milli təfəkkürü ilə Azərbaycan tarixinə, Azərbaycan ictimai-siyasi fikir tarixinə həkk etmiş Heydər Əliyevin çoxşaxəli fəaliyyəti haqqında bu ana kimi çox yazılıb, bundan sonra da yazılacaqdır. Bu əqidədəyəm ki, böyük Heydər Əliyev şəxsiyyəti haqqında daha tutarlı, daha dəyərli, bu dahi insanın Azərbaycanın xoşbəxt gələcəyi uğrunda göstərdiyi titanik fəaliyyətini bütün çalarları ilə göstərə biləcək, deyiləcək sözlər hələ qabaqdadır.

Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev ulu öndərimizin Azərbaycan tarixindəki müstəsna rolunu qiymətləndirərək deyib: "Heydər Əliyev bu millətin inkaredilməz qürur mənbəyi, qazandığımız bütün nailiyyətlərin səbəbkarı, uğurlu gələcəyimizin təməlini qoyan alternativsiz lider, millət atasıdır. Müstəqil Azərbaycan və onun əldə etdiyi uğurlar ümummilli liderimiz Heydər Əliyevin fəaliyyətinin şah əsəridir".

Danılmaz həqiqətdir ki, Vətənimiz, xalqımız, millətimiz, bütövlükdə isə bütün türk, müsəlman dünyası üçün Heydər Əliyev nadir şəxsiyyətlərdən idi. Öz zamanında, əqidə və fəaliyyəti ilə belə ad-san qazananlar, həyatlarını xalq, Vətən yolunda sərf edənlər heç vaxt unudulmur, xatirələrdən silinmir, həmişəyaşar olurlar…

Dünyanın ən qədim xalqlarından biri olan xalqımız bəşəriyyətə çox böyük dühalar, dahilər, elm, poeziya, sənət korifeyləri bəxş etmişdir. Azərbaycan torpağı çox görkəmli, yenilməz, zəkalı, istedadlı sərkərdələr, dövlət və ictimai-siyasi xadimlər yetirmişdir. Lakin 4 min ildən artıq yaşı olan dövlətçilik tariximiz dahi şəxsiyyətlərin adlarını qoruyub-saxlamış, nəsildən-nəslə, əsrdən-əsrə keçirmiş, onlara əbədiyyət heykəli ucaltmışdır.

Belə şəxsiyyətlərə Manna dövlətinin başçısı İranzunu, Atropatena dövlətinin yaradıcısı Atropatı, Albaniya hökmdarı Cavanşiri, öz bacarığı, kamalı ilə müstəqil, güclü Azərbaycan Atabəylər dövlətini yaratmış Şəmsəddin Eldəgizi, ilk milli Azərbaycan Səfəvilər dövlətinin banisi I Şah İsmayıl Xətaini, XX əsrin əvvəllərində sovet hakimiyyətinin ilk çağlarında Azərbaycana rəhbərlik etmiş doktor Nəriman Nərimanovu və başqalarını misal göstərmək olar.

Onlar xalqın milli dəyərlərini, dilini, dinini, mənəvi dünyasını qoruyub saxlamış, onu daha da inkişaf etdirmiş, bununla da xalq rəhbəri olmuşlar.

Mübaliğəsiz deyə bilərik ki, xalqımızın bu ulu, nəhəng övladları içərisində öz möhtəşəmliyi ilə yüksəkdə duran, şəxsiyyətlərdən biri də Heydər Əliyevdir.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə respublikamızı tarixin ağır sınaqlarından məharətlə çıxararaq, onu inkişafa və tərəqqiyə doğru aparmışdır. Bu müdrik şəxsiyyət DTK-da işlədiyi illərdə də bütün varlığı ilə xalqına xidmət etmiş, neçə-neçə milli ziyalımızı qorumuşdur. O, harada işləməsindən asılı olmayaraq, hansı vəzifə, mənsəb sahibi olmasına baxmayaraq, hər yerdə özünü əsl azərbaycanlı kimi aparmışdır. 34 il bir məmləkətə rəhbərlik etmək hər dövlət və siyasi xadimin işi deyildir. Həm də bu illər görülən işlər öz miqyasına, əhatəliyinə görə müqayisə olunmazdır.

…Ötən əsrin 70-80 – ci illərində Bakı əsl tikinti meydanına çevrildi. Az bir vaxt içərisində Bakıda parklar, xiyabanlar, meşə zolaqları salındı. Gül-çiçəyə, yaşıllığa büründü şəhər. Bu işlər Azərbaycanın bütün şəhər, qəsəbə və kəndlərində də aparılırdı. Qısa bir müddət ərzində Azərbaycan öz simasını tamamilə dəyişdi. Yeni-yeni zavod və fabriklər açıldı, mikrorayonlar, yaşayış sahələri salındı. Elmə, sənətə, ədəbiyyata, mədəniyyətə göstərilən qayğı və diqqət milli intibaha meydan açdı.

Çox keçmədi ki, Heydər Əliyevin Azərbaycanda gördüyü bu işlərin sorağı respublikanın sərhədlərini aşıb keçdi, bütün Sovet İttifaqına yayıldı. İctimai-siyasi həyatın və iqtisadiyyatın bütün sahələrində qazanılan yüksək nailiyyətlərə görə ölkəmiz dalbadal keçici bayraqlara layiq görüldü.

Azərbaycan Respublikası aqrar məmləkətdən yüksək inkişaf etmiş sənaye məmləkətinə çevrildi. Təbii ki, belə nəhəng işlərin görülməsi asan məsələ deyildi. Belə böyük və mühüm işləri görmək üçün bütün ittifaqda

Azərbaycanın müstəsna rolunu önə çəkmək lazım idi, və bunu da yalnız Heydər Əliyev kimi bir şəxsiyyət edə bilərdi. Qısa vaxtda təkcə SSRİ-də yox, bütün dünyada Azərbaycan tanınmağa başladı.

Bu da bir həqiqətdir ki, bütün dünya Azərbaycanı və azərbaycanlıları Heydər Əliyevin timsalında tanıyırdı. Ona görə ki, Heydər Əliyev sözün həqiqi mənasında Böyük Azərbaycanlı idi. Özü də bunu həmişə deyər-di: "Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən azərbaycanlıyam…" Ancaq bütün Azərbaycan xalqı da fəxr edirdi ki, onun Heydər Əliyev kimi bir övladı vardır…

Azərbaycana rəhbərlik etdiyi ilk gündən Heydər Əliyev mədəniyyətimizin tərəqqisi, inkişafı üçün çox işlər gördü. Onun təşəbbüsü ilə Azərbaycanın görkəmli şəxsiyyətlərinə abidələr, heykəllər ucaldıldı. N.Nərimanova, Nəsimiyə, Şah İsmayıl Xətaiyə, H.Cavidə, C.Cabbarlıya və digərlərinə qoyulmuş möhtəşəm heykəl və abidələr Heydər Əliyev yadigarlarıdır.

Ötən əsrin 70-80 – ci illərində nə qədər şair və yazıçılarımızın yubileyləri keçirildi. Bu yubileylər respublika çərçivəsində deyil, ümumittifaq, ümumdünya miqyasında keçirildi. Belə yubileylərin təşkilat komitəsinin rəhbəri adətən Heydər Əliyev olurdu. Bir qayda olaraq bu yubileylər Bakıdan sonra Moskvada, Leninqradda və başqa şəhərlərdə də keçirilir, hər bir yubiley əsl mədəniyyət, bayram hadisəsinə çevrilirdi. Belə mərasimlər xalqı təkcə tanıtmır, onu həm də ucaldırdı.

Yadımdadır ki, 1981-ci ilin payızı idi. Nizami Gəncəvinin yubileyi keçirilirdi. Keçmiş ittifaqdan və dünya ölkələrindən xeyli qonaqlar gəlmişdi. Çıxış edən qonaqlar poeziya bahadırı Nizami haqqında ürək sözlərini deyəndə, Heydər Əliyevin xidmətlərini də vurğulayırdılar. Moskvalı bir ədib dedi ki, baxın, bu il böyük Nizaminin nə 800, nə 850 illiyidir. Mən bu barədə Heydər Əliyevə deyəndə, o, cavab verdi ki, Nizami elə bir dahidir ki, onun yubileyini hər il, hətta hər ay da keçirməyə dəyər…

Ulu öndər Füzuli, Nəsimi, Ü.Hacıbəyov, S.Vurğun, C.Cabbarlı haqqında da belə deyərdi…

O illərdə respublika rəhbəri Heydər Əliyevin təşəbbüsü və qətiyyəti sayəsində başqa sovet respublikalarında da Azərbaycan ədəbiyyatı və mədəniyyəti günləri keçirilirdi. Əlbəttə, başqa xalqların da ədəbi və mədəni məclisləri Azərbaycanda keçirilirdi. Xalqların belə qarşılıqlı məclisləri onların bir-birini daha yaxından tanımasına, mədəni əlaqələrin inkişafına şərait yaradırdı.

Sonralar Azərbaycan günləri dünya ölkələrində də keçirilməyə başladı. Hələ o vaxtlar, yəni Sovet İmperiyası dövründə Heydər Əliyev Azərbaycanın gələcəyini, müstəqilliyini görürdü və ona görə də öz ölkəsini dünyada tanıtmaq istəyirdi. Belə günlər isə olduqca dolğun, təmtəraqlı olurdu. Xalqımızın mədəniyyəti, incəsənəti, musiqisi, hətta milli mətbəxi də Azərbaycan günləri keçirilən ölkədə təmsil olunurdu. Kuba Respublikasında keçirilən Azərbaycan günlərində bu sətirlərin müəllifi də olmuşdur. Biz uzaq Kubada da bir daha şahidi olduq ki, Heydər Əliyevi dünyanın hər yerində yaxşı tanıyırlar.

Nümayəndə heyətimiz bir də onunla fəxr edirdi ki, Kuba Respublikasının hər yerində Bakının istehsal etdiyi kondisionerlər işləyirdi… Bütün bunlar Heydər Əliyevin xidmətlərinin əks-sədası idi.

Bundan başqa, o dövrdə Azərbaycanda çox nüfuzlu elmi toplantılar keçirilirdi. 1979-cu ildə mənəvi tərbiyə ilə bağlı Bakıda Ümumittifaq miqyaslı çox sanballı elmi-tədqiqat konfransı keçirilirdi. O vaxt mən keçmiş Lenin muzeyində işləyirdim. Konfransın bölmələrindən biri bizim muzeydə keçirilirdi. Demək olar ki, SSRİ-nin ən görkəmli filosof, tarixçi, ictimaiyyətçi alimləri Bakı konfransına qatılmışdı. İki il idi ki, bu konfransa bütün ölkə miqyasında hazırlıq gedirdi. Konfransdan əvvəl Heydər Əliyev MK-da alimlərlə görüşmüş, onlarla geniş söhbət aparmışdı. Konfransa gəlmiş çox nüfuzlu alimlər etiraf edirdilər ki, Heydər Əliyev fitri istedaddır.

Heydər Əliyev onlara deyirmiş ki, mən iki ildir ümumittifaq miqyasında mənəviyyatla bağlı çıxan bütün kitabları oxumuş, araşdırmışam. İnsanlara bu gün, yeni zaman üçün yeni söz deyilməlidir. Bu gün zamanın tələb etdiyi mənəviyyatın formalaşdırılmasından, bunun yollarından danışmaq, bunları açmaq lazımdır.

O vaxt Bakıya gəlmiş tanınmış alimlər də Heydər Əliyevdən iftixarla, qürurla danışırdılar. Heydər Əliyevin dərin məzmunlu və əhatəli nitq və çıxışlarını dinləyən insanların ona hə-sədlə baxdıqlarının çox şahidi olmuşuq…

Ötən əsrin 80-90 – cı illərində bütün SSRİ-də dövlət xadimlərindən ən məşhuru, ən çox tanınanı, seviləni bizim xalqımızın lideri idi desək yanılmarıq…

Heydər Əliyev şairlə şair, memarla memar, tarixçi ilə tarixçi kimi danışırdı. Bu, o demək idi ki, böyük dövlət xadimi Heydər Əliyev hərtərəfli şəxsiyyət idi.

Heydər Əliyev bir neçə dəfə keçmiş Lenin muzeyində olmuşdu. O, olduqca diqqətli, gözündən heç bir şey yayınmayan adam idi. Onun muzeydəki eksponatlara, tarixi sənədlərə necə diqqətlə baxdığının dəfələrlə şahidi olmuşam. Muzeyə baxdıqdan sonra muzey əməkdaşları ilə söhbətlər edər, muzeydəki bir çox sənəd və eksponatlara öz münasibətini bildirərdi. Onun olduqca iti baxışları vardı. Ancaq insanlarla görüşəndə sadədən sadə olurdu. Bizim qarşımızda həmişə vəzifə qoyurdu ki, muzeydə Azərbaycan bütün tərəflərilə görünməlidir.

Tale elə gətirib ki, Azərbaycan Yazıçılarının qurultaylarında Heydər Əliyevin yazıçılar qarşısında parlaq nitqlərini dinləmək mənə də nəsib olmuşdur. Bir qayda olaraq onunla birlikdə Azərbaycan KP MK-nın Büro üzvləri də yazıçılar qurultayında iştirak edərdilər. O, Azərbaycanda gedən ədəbi proseslərə elə təhlil verirdi ki, ən görkəmli tənqidçilər belə təəccüb və heyranlıq hissi ilə ona baxırdılar. Biz görürdük ki, o müasir ədəbi qəhrəman məsələsində tənqidçiləri necə çətin vəziyyətdə qoyurdu. Ancaq bir həqiqət vardı: Heydər Əliyev Azərbaycan ədəbiyyatının vurğunu idi və ədəbiyyatımızın nailiyyətlərindən danışmaqdan yorulmurdu. Beləliklə o, həm də ən böyük ədəbiyyatçı idi…

…Milli liderimiz Heydər Əliyevin böyük vətənpərvər, xalqsevər olduğu ötən əsrin 90-cı illərində özünü daha bariz şəkildə göstərdi. Məkrli, naqis ermənilərin Vətənimizə təcavüzü və bu təcavüzə M.Qorbaçov başda olmaqla Moskvanın dəstəyinə ilk kəskin etiraz səsini ucaldan, partiya biletini tullayan da, çəkinmədən, qorxmadan, milli cəsarətlə sovet hakimiyyətinə qarşı tənqidlər söyləyən də ilk öncə Heydər Əliyev oldu. Ona arxalanan xalq ayağa qalxdı. Nəticədə müstəqil Azərbaycan Respublikası yarandı. Müstəqil Azərbaycanın keşiyində xalqın arxalandığı Heydər Əliyev dayandı.

1990-1993 – cü illər xalqın yaxşı yadındadır. Müstəqillik qazanmış Azərbaycanın başının üstünü qara dumanlar almış, Azərbaycan parçalanmaq həddinə çatmışdı. Yaxşı ki, o vaxt Heydər Əliyev Azərbaycanda idi. Yaxşı ki, xalqın güman yeri olan Heydər Əliyev var idi…

Xalqın təkidli tələbi ilə 1993-cü ildə Heydər Əliyev ikinci dəfə hakimiyyət başına gəldi. O vaxtlar hamının yaxşı xatirəndədir. Ölkədə anarxiya, xaos, hərc-mərclik baş alıb gedirdi. Üstəlik böyük dövlətlərin, xain ermənilərin təbliğatına uyan bəzi daxili separatçı qüvvələri baş qaldırdılar. Bax, belə bir şəraitdə Heydər Əliyev Azərbaycan rəhbərliyinə gəlmişdi. Mən özüm əslən cənub bölgəsindən olduğumdan bir ziyalı kimi öz mövqeyimi o vaxt bildirmişəm. O vaxt cənubdan olan bir çox ziyalılar kimi, mən də Heydər Əliyev siyasətini müdafiə edərək, Vətənin parçalanmasına qarşı bütün varlığımla mübarizə aparmışam. Mən 1993-cü ilin yayında Lənkəranda və ətraf rayonlarda separatçı qüvvələrin at oynatdığı bir dövrdə respublika mətbuatında və televiziyada çıxışlar etmişəm. Mən çox çətinliklə Masallıya gedib, orada dövlətçiliyimizi parçalamaq istəyən qüvvələrə qarşı kəskin çıxış etdim. Yerli camaatı Heydər Əliyev ətrafında sıx birləşməyə çağırdım. Həmin günlərdə cənub bölgəsinin əhalisi birmənalı olaraq dövlətçiliyimizi dəstəklədi.

O vaxt Azərbaycanı, Azərbaycan xalqını böyük bəladan, dəhşətli fəlakətdən Heydər Əliyev fenomeni, Heydər Əliyev cəsarəti və müdrikliyi qoruyub saxladı. Əgər bu böyük şəxsiyyət olmasaydı, Azərbaycanı heç bir qüvvə qurtara bilməzdi. Heydər Əliyev fəaliyyəti, iradəsi və xalqa arxalanması, xalqın da öz müdrik liderinə güvənməsi və geniş xalq məhəbbəti bir vəhdətdə birləşdiyindən Azərbaycan dövlətçiliyi xilas oldu.

Ümummilli liderimiz Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində ölkədə sabitlik yarandı, demokratik yol amalımız oldu. Ölkəmiz demokratiya, hüquqi dövlət quruculuğu yolu ilə irəlilədi, xalq birliyi yarandı. Heydər Əliyev azərbaycançılıq ideologiyasını dövlətin əsas ideologiyası səviyyəsinə qaldırdı. Azərbaycançılıq ideologiyası Heydər Əliyevin ən böyük əsəridir desək, heç yanılmarıq.

Müstəqil Azərbaycan Respublikasının rəhbəri kimi Heydər Əliyev dövlətçilik sahəsində tarixi işlər gördü. İstər sovet dönəmində, istərsə də Azərbaycanın müstəqilliyi dövründə Heydər Əliyev həmişə ziyalılara, əmək adamlarına diqqət və qayğı göstərmişdi. Azərbaycanın müstəqilliyi dövründə ölkə rəhbəri ziyalılara həm mənəvi, həm də maddi dayaq olmuş nə qədər şair və ədibə, artist və musiqiçilərə prezident təqaüd ayırmışdır. Bu gün bu ənənə möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən davam etdirilir.

Heydər Əliyev bir insan ömrünə sığmayan titanik işlər gördü. Heydər Əliyevin dilimiz, dinimiz və tariximiz üçün gördüyü işlər bəs edərdi ki, hələ sağlığında ikən ona heykəl ucaldılsın. O öz dilini sevir, ona hörmətlə yanaşırdı.

Yadımdadır, 1998-ci ildə Bakıda iki böyük islam toplantısı keçirildi. Hər iki konfransda ölkə Prezidenti iştirak etmiş və geniş, parlaq nitq söyləmişdir. O günlər indi də gözlərim qarşısındadır. Ulu öndərimizin “Xalqımız öz tarixi, milli-mənəvi dəyərləri, doğma dili ilə islam dininə, mədəniyyətinə mənsub olması ilə fəxr edir” mövzusunda söylədiyi parlaq nitq dünyanın hər yerindən gəlmiş görkəmli din xadimlərini, teoloqları sanki ovsunlamışdı. Bu sanballı, lakonik və məzmunlu nitq hamını sözün həqiqi mənasında heyran qoymuşdu…

Bu gün Azərbaycan xalqı Heydər Əliyevin ictimai-siyasi kursunu layiqincə davam etdirən, dünya dövlətçilik təcrübəsinə dərindən bələd olan, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında gələcəyə inamla gedir.

**“Respublika”**.- 2009.- 5 may.- №96.- S.4

## AZƏRBAYCANI DÜNYAYA TANIDAN LİDER

**Bahar MURADOVA,**
Milli Məclisin Sədr müavini,
YAP İdarə Heyətinin üzvü

***Müstəqil Azərbaycanın bir çox aparıcı dünya dövlətlərinin onilliklər boyu keçdiyi təkamül və inkişaf mərhələlərini qısa zaman kəsiyində qət edə bilməsi heç də yalnız respublikanın zəngin təbii sərvətləri və intellektual resursları ilə şərtlənmir. Azərbaycanda bu potensialın xalqın mənafeyinə uyğun realizə edilməsi, hər kəsi qane edə biləcək milli siyasət strategiyasının həyata keçirilməsi, eyni zamanda xarici siyasət kursunun prioritetlərinin doğru-düzgün müəyyənləşdirilməsi və reallaşdırılması ilə sıx bağlıdır.***

Ötən əsrin sonlarında sosializm sisteminin uğursuz sonluğu və sovetlər birliyinin süqutu nəticəsində yeni dünya düzəninin formalaşması yenicə müstəqillik əldə etmiş ölkələri siyasi oriyentasiya problemi ilə üz-üzə qoymuşdu. Həmin dövrdə Azərbaycanda digər sahələrdə olduğu kimi, xarici siyasətdə də qarışıqlıq mövcud idi. Dövlətin xarici siyasət konsepsiyasında ardıcıllığın, prinsipiallığın olmaması ölkə daxilindəki problemlərin daha geniş vüsət almasını şərtləndirir, respublikanın düşdüyü gərgin situasiyadan çıxmasına əngəl törədirdi. Lakin dünya şöhrətli siyasətçi, siyasi gerçəklikləri dərindən analiz etmək və nəticə çıxarmaq qabiliyyətinə malik olan ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə tarixi dönüşü xarici siyasətdə də yeni pəncərə açdı. Məhz Heydər Əliyevin ciddi səyləri nəticəsində vəziyyəti dəyişdirmək, bölgədə və ümumilikdə, dünyada Azərbaycana münasibəti müsbətə doğru dəyişmək mümkün oldu. Dövlət başçısının xarici ölkələrə ardıcıl səfərləri, nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri ilə keçirdiyi görüşlər, aparılan gərgin işlər sayəsində qısa zaman ərzində Ermənistanın Azərbaycana təcavüzü, ölkəmizin sosial-iqtisadi vəziyyəti və potensialı haqqında həqiqətlər dünya ictimaiyyətinə çatdırılmış, respublikanın xarici siyasətinin əsas prinsipləri və istiqamətləri müəyyən edilmişdir.

Bu gün müşahidə etdiyimiz gerçəklikləri o dövrün çətin reallıqları ilə müqayisə etdikdə görərik ki, Heydər Əliyev ölkəmizin qarşısında duran problemlərin həllinə nail olmağı, dövləti böhranlı durumdan çıxarmağı bacarmışdır. Bu qənaətə gəlmək mümkündür ki, o zaman zərgər dəqiqliyi ilə müəyyənləşdirilmiş, xarici siyasət kursu özünü bütün mənalarda doğrultmuşdur. Əgər ötən əsrin sonlarında qazanılmış dövlət müstəqilliyinin ilk illərində Azərbaycanın, sadəcə, siyasi kuluarlarda tanınan bir ölkə olduğunu nəzərə alsaq, bu gün aypara ulduzlu, üç rəngli bayrağın hansı dövlətin rəmzi olduğunu artıq bütün dünyanın dərk etməsinə, sadəcə, sevinməklə kifayətlənməyib, bundan həm də qürur hissi keçirməliyik. Nəticə isə ondan ibarətdir ki, ulu öndər Heydər Əliyevin və hazırda onun siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyevin siyasi və diplomatik səyləri nəticəsində Azərbaycan haqqında vaxtilə formalaşmış mənfi rəy artıq tamamilə dağıdılmışdır.

İndi artıq Azərbaycan üzərinə götürdüyü öhdəlikləri məsuliyyət və qətiyyətlə yerinə yetirdiyinə görə beynəlxalq təşkilatlar üçün çox önəmli tərəfdaşlardan biridir. Rəsmi Bakı beynəlxalq təşkilatlarla əlaqələrin inkişafına böyük önəm verir. Dünyanın 192 dövlətini öz sıralarında birləşdirən BMT-yə Azərbaycan 17 il əvvəl -1992-ci ildə üzv olub. Bu, Azərbaycan dövlətinin beynəlxalq miqyasda tanınması baxımından ilk ən böyük uğurlardan biri olmaqla yanaşı, həm də mötəbər tribunadır.

Dahi rəhbər Heydər Əliyev Azərbaycanın BMT müstəvisində həyata keçirdiyi siyasətin strateji və taktiki tərəflərini dəqiq şəkildə müəyyən edərək, bu təşkilatla münasibətləri həmişə diqqət mərkəzində saxlayırdı. Məhz yürüdülən bu xəttin nəticəsində, Ermənistanın və erməni lobbisinin bütün cəhdlərinə baxmayaraq, BMT-də açılan müzakirələrdə Dağlıq Qarabağın Azərbaycana mənsubluğu “BMT və ATƏT arasında əməkdaşlıq” qətnaməsində öz əksini tapıb. Qeyd olunmalıdır ki, Azərbaycanın BMT ilə əməkdaşlığı yalnız bir istiqamətlə məhdudlaşmır. Tərəflər bir sıra aspektlərdə birgə layihələr həyata keçirib. BMT-nin müxtəlif qurumlarında fəaliyyətin genişləndirilməsi istiqamətində əhəmiyyətli addımlar atılıb, Ermənistanın təcavüzü nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş 1 milyondan çox Azərbaycan vətəndaşının ağır şəraitini yüngülləşdirmək üçün BMT İnkişaf Proqramı, Qaçqınlar üzrə Ali Komissarlıq, Ümumdünya Ərzaq Proqramı, YUNİSEF və başqa təşkilatlar çərçivəsində humanitar yardımlar alınmışdır.

Xüsusi vurğulanmalıdır ki, Heydər Əliyevin başladığı bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan – BMT münasibətlərinin inkişafı cənab İlham Əliyevin xarici siyasətində önəmli yer tutur. BMT Baş Məclisinin 59-cu sessiyasındakı çıxışında Prezident İlham Əliyev sülhün qorunması və münaqişələrin aradan qaldırılması istiqamətində BMT-nin rolunun artırılması məsələsindən danışarkən qeyd edib ki, ümdə məsələ BMT Təhlükəsizlik Şurası qətnamələrinin həyata keçirilməsinin işlək mexanizminin yaradılmasından ibarətdir. Ölkə başçısı həmin çıxışında xüsusilə vurğulayıb ki, Azərbaycan dünyada sülhün

qorunması istiqamətində səylərini daim davam etdirəcək: *"Biz daha sülhsevər, təhlükəsiz və ədalətli dünya üçün çox zəruri olan BMT və onun nizamnaməsinə inamımızı bir daha təsdiqləmişik".*

BMT-nin Baş Məclisində ötən ilin mart ayında Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş torpaqlarında vəziyyətlə bağlı qətnamənin qəbul olunmasını da tərəflər arasında uğurlu əməkdaşlığın, rəsmi Bakının diplomatik səylərinin məntiqi yekunu kimi qeyd etmək olar. Prezident İlham Əliyev həmin məqama xüsusi diqqət yetirərək bəyan edib ki, bu, doğrudan da bizim böyük siyasi və diplomatik qələbəmizdir. *"Biz bir neçə il idi ki, bu qələbəyə doğru irəliləyirdik. Bu qətnamənin qəbul olunması üçün çox böyük işlər görülübdür. İctimaiyyət, təbii ki, bunun son nəticəsini görür. Görür ki, artıq səsvermədə Azərbaycan böyük üstünlüklə qələbə qazanıb. Amma bunu təmin etmək üçün nə qədər böyük səylər göstərilibdir. Əlbəttə ki, bunu hamı bilə bilməz. Bu qətnamə artıq digər beynəlxalq təşkilatlara da öz təsirini göstərir. Bu yaxınlarda Avropa Şurası tərəfindən qəbul edilmiş sənəddə artıq BMT Baş Məclisindəki sənədə istinad edilir və bunun əhəmiyyəti haqqında sizə əvvəlcədən deməyə ehtiyac yoxdur. Siz bunu yaxşı anlayırsınız. Bu onu göstərir ki, məqsədyönlü siyasət və düşünülmüş addımlar nəticəyə, uğura gətirib çıxarır.* Görülən işlər və qarşıda qoyulmuş məqsədlər gələcək illərdə də BMT ilə əməkdaşlığı zəruri edir və Prezident İlham Əliyev də bu istiqamətdə addımların davam edəcəyini bəyan edib.

Azərbaycanın ATƏT-lə qarşılıqlı münasibətləri də müsbət dinamika üzrə inkişaf etməkdədir. ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi dünyanın 56 dövlətini özündə birləşdirən bu təşkilatda Azərbaycanın siyasi nüfuzunun ildən-ilə sürətlə artmasının şahidiyəm. Tam əminliklə deyə bilərəm ki, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması istiqamətində ATƏT-in yüksək tribunasından və Minsk qrupunun potensialından daha səmərəli istifadə etmək üçün ölkə rəhbərliyi son illər bütün daxili və xarici siyasi amilləri səfərbər etməyə nail olub.

Azərbaycanın xarici siyasət xəttinin ən önəmli üstünlüklərindən olan balanslı və çoxtərəfli siyasət beynəlxalq təşkilatlarla əlaqələrimizdə də özünü göstərir. Diqqətlə nəzər yetirsək, görərik ki, BMT və ATƏT-lə Azərbaycan arasındakı yüksək əməkdaşlıq digər təşkilatlarla münasibətlərimizdə də qorunur. Məsələn, NATO – Azərbaycan münasibətlərinin səviyyəsi, quruma rəhbərlik edən şəxslərin özlərinin də ifadə etdikləri kimi, təqdirəlayiqdir. Doğrudur, Azərbaycan NATO-nun tamhüquqlu üzvü deyil. Amma müstəqil dövlət kimi Azərbaycan bu təhlükəsizlik təşkilatının layihələrində fəal iştirak edir. NATO-nun Sülhməramlı Qüvvələri tərkibində Azərbaycanın zabit və əsgərləri bir sıra münaqişə zonalarında respublikamızın şərəfini ləyaqətlə qorumuş və qorumaqdadır. Azərbaycan bu gün həm də antiterror koalisiyasına bütün mənalarda dəstək verən ölkələr sırasındadır və bunu xarici siyasətin prioritet istiqamətlərindən biri kimi qəbul edir.

Ölkəmiz NATO-nun sammitlərində, konfranslarında ən yüksək səviyyədə təmsil olunur. NATO ilə əməkdaşlığın davam etdirilməsi Azərbaycana öz hərbi potensialını artırmağa, hərbi sistemi müasirləşdirməyə, islahatlar aparmağa imkan verir.

Eynilə digər təşkilatlarla əməkdaşlıqda da qarşıya qoyulan ən ümdə məqsəd bu və ya başqa sahələrin, demokratiyanın inkişafına təkan verməkdir. Avropanın qabaqcıl təşkilatları ilə münasibətlərin inkişafı rəsmi Bakının maraqlarına cavab verir. Bu gün Azərbaycan Avropanın ən önəmli təşkilatı olan Avropa İttifaqı ilə müsbət istiqamətdə münasibətlər qurub. Ölkəmiz bu təşkilatla "Yeni qonşuluq siyasəti" proqramı çərçivəsində əməkdaşlıq edir və bu əməkdaşlıq kifayət qədər səmərəlidir. Azərbaycanın perspektivdə bu təşkilata üzvlüyü isə təşkilatın sərgiləyəcəyi mövqedən asılı olacaq. Dövlət başçısı İlham Əliyevin də bəyan etdiyi kimi, Avropaya inteqrasiya planı baxımından Avropa İttifaqı tərəfindən irəli sürülmüş bu təşəbbüsü rəsmi Bakı nəzərdən keçirəcək: *"Əks halda, özümüzü zorla qəbul etdirmək fikrində deyilik. Biz öz təhlükəsizliyimizi özümüz təmin edirik, biz həm iqtisadi, həm siyasi və həm də enerji baxımından özümüzü tam təmin edə bilən ölkəyik. Ona görə də biz bunu əsas götürürük ki, münasibətlər bərabərhüquqlu olmalıdır, qarşılıqlı hörmət və qarşılıqlı mənafelər əsasında qurulmalıdır.* Başqa sözlə, beynəlxalq təşkilatlarla şaquli münasibətlərdən üfüqi münasibətlərə keçid təmin olunmalıdır. Yeri gəlmişkən, bir müddət əvvəl Azərbaycanla Avropa İttifaqı arasında Beşillik Fəaliyyət Proqramı imzalanıb ki, bu sənəd siyasi və iqtisadi mövzularla yanaşı, insan hüquqları və demokratik prosesləri də əhatə edir.

Azərbaycanın Avropanın digər təşkilatı – Avropa Şurası ilə münasibətlərini də kifayət qədər pozitiv və çoxşaxəli hesab etmək olar. 2001-ci ildə bu quruma tam hüquqlu üzv kimi qəbul olunmuş Azərbaycan həmin dövrdən bəri öz üzərinə götürdüyü öhdəlikləri layiqincə yerinə yetirib. Həmin təşkilata qəbul olunmaq məhz Azərbaycanın öz seçimi olub. Prezident İlham Əliyev rəsmi Bakının bu arzusunu belə əsaslandırıb: *"Biz bunu qəsdən və ya kiminsə təzyiqi altında etməmişik. Təbii ki, qəbul olunduqda biz üzərimizə öhdəliklər götürmüşük və onları yerinə yetiririk. Həmin öhdəliklərin yerinə yetirilməsi, sadəcə, onunla bağlı deyil ki, bunu Avropa Şurası qarşısında etmək lazımdır. Bu, ölkəmizin inkişafına yardım edir. Buna görə də Avropa Şurasına qəbul olunduqdan sonra Azərbaycanın tənqid edildiyi bir çox məsələlər aradan qaldırıldı. Biz onları həll etdik.*

*"Siyasi məhbuslar məsələsi" deyilən məsələ öz həllini tapdı. Ölkəmiz Avropaya daha sıx inteqrasiya edən və daha açıq olan ölkəyə çevrilir. Ona görə də son illər ərzində biz o qədər də tənqid yox, müsbət mesajlar alırıq. Tənqidə gəldikdə isə, o, hər zaman var. Demokratiya baxımından ən inkişaf etmiş ölkələr də bəzən Avropa Şurası tərəfindən tənqid edilir. Bu, normaldır. Tənqid obyektiv olduqda və bizim inkişafımıza xidmət etdikdə ona çox dözümlü yanaşırıq.*

Heç kəsə sirr deyil ki, Azərbaycan islam mədəniyyətinin mərkəzlərindən biridir və müsəlman dövlətləri ilə də fəal əməkdaşlıq içərisindədir. O cümlədən Bakının İslam Konfransı Təşkilatı ilə münasibətləri də daim güclənir. Bu prosesə məhz Prezident İlham Əliyev başçılıq edir: *"Azərbaycanda müxtəlif tədbirlər keçirilir. İslam aləmi ilə bizim münasibətlərimiz çox sürətlə inkişaf edir və bu, məni çox sevindirir. Biz elə etməliyik ki, bütün beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyək, islam həmrəyliyini gücləndirək və bizim üçün dost olan ölkələrlə münasibətlərimizi bütün istiqamətlərdə davam etdirək. Azərbaycan İslam Konfransı Təşkilatı çərçivəsində çox vacib rol oynayır və bu rolu oynamağa davam edəcəkdir".*

Eyni zamanda Azərbaycanın MDB, GUAM, Qara Dəniz iqtisadi Əməkdaşlıq Təşkilatı, İƏT və bütün digər təşkilatlarla da əlaqələri inkişaf edir və bu münasibətlər təşkilata üzv ölkələrlə əlaqələrimizə, problemlərin həllinə kömək göstərir.

Son illər Bakının bir çox nüfuzlu, müxtəlif səpkili, yüksək səviyyəli beynəlxalq tədbirlərə ev sahibliyi etməsi dövlətimizin beynəlxalq təşkilatlar tərəfindən Cənubi Qafqazın danılmaz lideri kimi qəbul olunduğuna əyani sübutdur.

Xüsusi olaraq vurğulanmalıdır ki, bu gün beynəlxalq təşkilatlarla yanaşı, xarici dövlətlərlə bərabər-tərəfli əlaqələrin inkişafı, dünyanın güc mərkəzləri ilə dəqiq və nəticəyə hesablanmış, Azərbaycanın dövlət maraqlarının qorunduğu münasibətlər sisteminin formalaşdırılması da bu gün ölkəmizin xarici siyasət konsepsiyasında başlıca yerlərdən birini tutur. Bu baxımdan Azərbaycanın ABŞ, Rusiya və Avropanın güclü dövlətləri ilə münasibətlərinin ayrıca təhlilinə ehtiyac duyulur. Hamıya aydındır ki, bu gün Azərbaycan heç bir xarici dövlət üçün sınaq laboratoriyası rolunu oynamır. Azərbaycan öz yolunu müəyyənləşdirib və bu yolda qarşıya çıxan istənilən əngəllərlə lazımınca mübarizə aparmaq iqtidarındadır. Azərbaycan heç zaman qarşıdurma, rəqabət məkanı olmayıb və bundan sonra da olmayacaq. Bütün dünyada ölkəmizlə bağlı hakim düşüncə ondan ibarətdir ki, Azərbaycan dünyada əməkdaşlıq, işbirliyi, iqtisadi layihələr və sosial məsələlərin həlli üçün münbit şəraitə malikdir, eyni zamanda dünyada sivilizasiyalararası dialoqun gücləndirilməsi üçün əvəzolunmaz rol oynayır.

Reallıq ondan ibarətdir ki, Azərbaycanın xarici siyasətində bir tərəfdən digər ölkələrlə dostluq, qonşuluq, əməkdaşlıq münasibətlərinə ciddi önəm verilir, digər tərəfdən ölkəmizin milli təhlükəsizliyinə və milli maraqlarına zidd olan hərəkətlərə də adekvat reaksiya həmişə özünü göstərir. Məsələn, bu yaxınlarda Rusiyadan Ermənistana 800 mln. ABŞ dolları məbləğində silah ötürülməsi ilə bağlı yaranmış vəziyyətə ölkə rəhbərliyi tərəfindən ən yüksək səviyyədə ciddi etiraz bildirilməsi buna bariz nümunədir.

Azərbaycanın ABŞ-la münasibətləri də çox yüksək əməkdaşlıq dialoqu prinsiplərinə uyğun, qarşılıqlı maraqların təmin olunması istiqamətində qurulub. Bu gün ABŞ – Azərbaycan strateji tərəfdaşlığı çərçivəsində tərəflər arasında bir çox istiqamətləri əhatə edən yüksək münasibətlər mövcuddur. Məhz ulu öndərin səyləri nəticəsində ilk dövrlərdə əsasən enerji sahəsini əhatə edən əməkdaşlıq istiqamətləri daha da genişləndirilmiş, əlaqələr bütün iqtisadi-siyasi, ictimai-humanitar detalları ilə dərin xarakter almışdır. Bu gün Azərbaycanda demokratiyanın inkişafında və təhlükəsizliyin təmin olunmasında superdövlətin verdiyi töhfələr danılmazdır. İqtisadi resursların artması və bölgədə azad əməkdaşlıq məkanının yaranması üçün tarazlaşdırılmış siyasət yürüdən Azərbaycanın regionda liderliyini qəbul edən rəsmi Vaşinqton yaxşı anlayır ki, regional sabitlik üçün Azərbaycanın potensialından bəhrələnmək lazımdır. Buna ölkəmizin mövcud iqtisadi potensialı, geocoğrafi mövqeyi və siyasi qətiyyəti zəmanət verməkdədir. Eyni zamanda, Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşan böyük enerji layihələrinə Birləşmiş Ştatların verdiyi dəstək son məqamda həlledici təsirə malik olub. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum layihələrinin reallaşmasında Amerikanın dəstəyi xüsusi rol oynayıb. Superdövlətin bu siyasəti davam etdirməsi bu gün digər regional layihələrin reallaşması üçün də əlverişli zəmin yaradıb. Dünyanın üzləşdiyi qlobal iqtisadi böhran fonunda 'Trans-xəzər" və "NABUCCO" layihələrinə Amerikanın marağının artması bu tranzit marşrutlarının çəkilişinə ən böyük dəstək kimi səciyyələndirilə bilər. Azərbaycanla ABŞ arasında enerji, nəqliyyat sahəsində əlaqələrin digər dövlətlər üçün də töhfəsi diqqətdən qaçmamalıdır. Belə ki, bu gün GUAM ölkələri, eləcə də Şərqi Avropa dövlətləri bu imkanlardan istifadə edərək enerji təhlükəsizliyini təmin edir, nəqliyyat-kommunikasiya sistemlərini formalaşdırır.

Bu yaxınlarda Budapeştdə keçirilmiş Beynəlxalq Enerji Sammitində ölkəmizin prezident səviyyəsində təmsil olunması, bundan sonra İsveçrənin Davos şəhərindəki ənənəvi Dünya iqtisadi Forumunda cənab İlham

Əliyevin Avropanın enerji təhlükəsizliyi ilə bağlı çıxışları, keçirdiyi yüksək səviyyəli ikitərəfli görüşlər bir daha sübut edir ki, Azərbaycan, sözün əsl mənasında, Avropanın yeni təhlükəsizlik arxitekturasında özünəməxsus yerini və siyasi çəkisini müəyyənləşdirib.

ABŞ və Avropa ölkələri ilə formalaşmış belə münasibətlərin, eyni zamanda Rusiya ilə davam etdirilməsinə ölkəmiz nail ola bilib. Bu gün Rusiya Azərbaycanı özünün tərəfdaşı hesab edir və tərəflər arasında bir çox sahələri əhatə edən müsbət əlaqələr mövcuddur. Həmçinin regiona yaxın dövlətlərlə də müsbət münasibətlər qurmağa nail olan rəsmi Bakı dünyada balanslaşdırılmış xarici siyasət örnəyi sərgiləyir. Təbii ki, bu da yekunda Azərbaycanın qarşısına çıxan problemlərin həlli üçün geniş perspektivlər açır. Düşünürəm ki, bütün bunlar ən sonda Azərbaycanın bir nömrəli problemi olan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün də uğurlu gələcək vəd edir.

Qeyd etməliyik ki, bu gün hər bir Azərbaycan vətəndaşı Dağlıq Qarabağ münaqişəsinin həll olunacağına böyük ümidlə baxır. Dövlət başçısı İlham Əliyev də dəfələrlə bəyan edib ki, Dağlıq Qarabağ münaqişəsinin həlli hazırda qarşıda duran ən birinci vəzifədir və bunun üçün bütün lazımi tədbirlər görüləcək. *"Bu gün Azərbaycan sülh danışıqlarına sədaqətlidir və prosesin davam etməsində maraqlıdır. Bəzi ümidverici təkliflər səslənir, bəzi təşəbbüslər irəli sürülür. Biz bu təklifləri təhlil etməyə hazırıq, bunu edirik. Ancaq o da reallıqdır ki, məsələnin həlli çox uzanıbdır. Azərbaycanın artan iqtisadi, siyasi və hərbi potensialı, əlbəttə ki, danışıqlarda bizim mövqeyimizi daha da gücləndirir. Regionda baş verən hadisələr və regionda bizim oynadığımız rol Azərbaycanın mövqelərini gücləndirir. Çox sevindirici haldır ki, artıq Azərbaycanın ərazi bütövlüyü məsələləri heç kimdə şübhə doğurmur. Həm beynəlxalq təşkilatlar, həm də məsələ ilə məşğul olan qüvvələr bunu tam şəkildə bəyan edirlər. Yəni bizim beynəlxalq mövqelərimiz kifayət qədər güclüdür. Bütün beynəlxalq hüquq normaları bizim tərəfimizdədir. Biz, sadəcə olaraq, hələ ki, danışıqların aparılmasına ehtiyac duyuruq. Hesab edirik ki, ola bilər, reallıq qarşı tərəfi də bir az hərəkətə gətirsin və qarşı tərəf, nəhayət, anlasın ki, bu vəziyyətdə onların normal inkişafı mümkün ola bilməz. Bizim isə siyasətimiz tam açıqdır, birmənalıdır və dəyişməz olaraq qalır. Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Bu, tarixən belə olubdur. Beynəlxalq hüquq normaları bunu təsdiqləyir. Münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər, işğalçı qüvvələr işğal olunmuş bütün torpaqlardan çıxarılmalıdır, Azərbaycan vətəndaşları həmin bölgələrə, o cümlədən Dağlıq Qarabağa qayıtmalıdırlar. Ondan sonra Dağlıq Qarabağın hüquqi statusu müzakirə oluna bilər. Biz bu müzakirəyə hazırıq. Ancaq bir şərtlə ki, bu status yalnız Azərbaycanın ərazi bütövlüyü ilə müəyyən oluna bilər. Azərbaycan başqa heç bir varianta getməyəcəkdir".*

Beləliklə, yeni geosiyasi durumda Azərbaycan diplomatiyasının ölçülüb-biçilmiş taktiki gedişləri dövlətimizin indiyədək nail olduğu nüfuzuna xələl gətirilməsinin qarşısını alıb. Ötən ilin avqustunda Gürcüstanda baş vermiş qanlı hadisələr, bu yaxınlarda isə şahidi olduğumuz İsrail – Fələstin qarşıdurması ilə bağlı siyasi çaxnaşmalara münasibətdə Azərbaycanın siyasi iradə və təmkin nümayiş etdirməsi qarşıya çıxa biləcək problemlərdən məharətlə çıxması üçün zəmin yarada bilmişdir. Belə ki, hər iki halda, yəni həm Rusiya və Gürcüstanın, həm də İsrail və Fələstinin siyasi rəhbərlikləri Azərbaycanın diplomatik mövqeyinə rəğbətlə yanaşdıqlarını ifadə etmişlər.

***Xarici siyasətdə müəyyənləşdirilmiş prioritetlər, təbii ki, Azərbaycanın mövqelərinin güclənməsinə, beynəlxalq aləmdə çəkisinin artmasına və daha qüdrətli dövlət olmasına xidmət edir. Bu mənada şübhə yoxdur ki, dövlətimizin Heydər Əliyev tərəfindən əsası qoyulan xarici siyasət strategiyası təkmilləşdikcə, diplomatik əlaqələri uğurla inkişaf etdikcə Azərbaycan tezliklə Qərb dünyasının, xüsusilə Avropa sivilizasiyasının ayrılmaz tərkib hissəsinə çevriləcəkdir.***

**"Azərbaycan"**.-2009.-6 may.-№97.-S.3

## AZƏRBAYCAN KONSTİTUSİYASININ MÜƏLLİFİ

**Siyavuş NOVRUZOV,**
Milli Məclisin deputatı,
YAP İdarə Heyətinin üzvü

**Hər bir xalqın müasir dünyada özünə layiqli yer tutmasının mühüm göstəricilərindən biri yüksək ədalət anlayışının ifadəsi olan hüquq prinsiplərinə və onun ali məcmusu olan qanunlara münasibətidir. Hələ eramız-dan əvvəl meydana çıxan ilk sivilizasiyalar Hammurapi qanunları, Drakon qanunları, XII lövhə qanunları kimi unudulmaz hüquqi abidələr yaratmaqla insan cəmiyyətinin mövcudluğunun xə birgə yaşayışının başlıca şərti kimi qanunlara riayət etmənin ən vacib şərt olduğunun əhəmiyyətini aydın şəkildə dərk edirdilər. Bu proses orta əsrlərdə də davam edərək, bugünkü müasir qloballaşan dünyanın mürəkkəb ictimai-siyasi xə sosial-iqtisadi münasibətlər sistemini tənzimləyən Əsas Qanuna – Konstitusiyaya qədər kəşməkəşli, lakin daim inkişafda olan uzun bir yol keçmişdir.**

Konstitusiya elə bir sənəd olmalıdır ki, demokratiyanın əsas qanununa uyğun olaraq hakimiyyətdə olan siyasi qüvvələr dəyişildikcə Əsas Qanunu da dəyişdirmək zərurəti meydana çıxmasın. Bəzi hallarda konstitusiya qəbul etmək, yaxud onu əsaslı şəkildə dəyişdirmək cəhdləri bu və ya digər qüvvələr tərəfindən narazılıqla qarşılanır, nəticədə siyasi böhranlar yaranır. Elə bizim günlərimizdə, postsovet məkanı dövlətlərində baş verən siyasi proseslərə diqqətlə nəzər salmaq bunu təsdiqləyir. Deyilənlərin sübutu kimi belə bir faktı da göstərmək olar ki, 1918-ci ildə Şərqdə ilk demokratik respublika şəklində meydana çıxmış Azərbaycan Xalq Cümhuriyyəti, yaxud SSRİ-nin parçalanması nəticəsində öz dövlət müstəqilliyini elan etmiş Azərbaycan Respublikasında hakimiyyətə gəlmiş AXC-Müsavat iqtidarı bütün cəhdlərinə baxmayaraq öz sələflərindən tamamilə fərqlənən yeni müstəqil dövlətin konstitusiyasını qəbul edə bilmədilər.

Azərbaycan Konstitusiyasının qəbul edildiyi ərəfədə ölkədə vəziyyət sabit deyildi. Dövlət çevrilişi cəhdləri ara vermirdi. İlk baxışdan təsəvvür edilməsi çətin olsa da, belə cəhdlərə ölkənin yüksək vəzifəli şəxsləri – baş nazir, digər yüksək rütbəli məmurlar başçılıq edirdilər. Vətəndaş müharibəsi təhlükəsi hələ sovuşmamışdı. Dövlətdə təmsil olunan yüksək vəzifəli və rütbəli şəxslər öz siyasi ambisiyalarını dövlət maraqlarından üstün tutur, öz xalqı və dövləti ilə ultimatum dilində danışmağa üstünlük verirdilər. Dövlətə sədaqətli şəxslər terror vasitəsilə aradan götürülür, vətəndaşlarda vahimə, qorxu hissləri yaradılırdı. Əvvəlki xəyanətkar iqtidar tərəfindən bağlanmış və hakimiyyətdə olan qüvvələrin mənafeyini əks etdirən neft müqavilələri ləğv edilmiş, yeni müqavilələrin bağlanması ərəfəsində xarici investorlar qorxudularaq ölkədən uzaqlaşdırılmışdı. Yenicə əldə edilmiş atəşkəs kövrək idi. Vaxt isə gözləmirdi. Belə bir şəraitdə konstitusiyanın qəbul edilməsi ölkədə ictimai-siyasi sabitliyin bərqərar olmasına, əhali arasında dövlətə inamın artmasına, yubanmaq isə vəziyyətin daha da pisləşməsinə gətirə bilərdi.

Bütövlükdə xalqın, dövlətin və hər bir vətəndaşın taleyinə birbaşa və həlledici təsir göstərən Azərbaycan Respublikasında Konstitusiya qəbulu kimi nəhəng siyasi prosesin uğurunu şərtləndirən ən mühüm amil bu prosesin müdrik dövlət rəhbəri, ümummilli lider, xarizmatik şəxsiyyət tərəfindən idarə edilməsi idi. Həmin anda Azərbaycanın yeganə ümidi, böhranlı vəziyyətdən ən etibarlı çıxış yolu dövlətin sükanı arxasında belə bir şəxsiyyətin olması idi. Bu, xalqını, onun dövlətini taleyüklü anda xilas etmək missiyasını öz üzərinə götürən ümummilli lider Heydər Əliyev idi.

1995-ci ilin mayın 2-də Azərbaycan Respublikasının Milli Məclisi yeni konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibini təsdiq etdi. Heydər Əliyevin sədr olduğu komissiyaya həmin vaxtda mövcud olan hər üç hakimiyyət qanadının rəhbərlərindən əlavə, ictimai elmlər sahəsində tanınmış mütəxəssislər, görkəmli elm xadimləri, ictimai və yaradıcılıq təşkilatlarının rəhbərləri daxil edilmişdi.

Ümummilli lider dövlət müstəqilliyinin əldə edildiyi 1918-ci ildən etibarən Azərbaycan Respublikasının inkişaf tarixini hərtərəfli təhlil etdi. 1993-cü ilin oktyabrında da yeni Konstitusiya hazırlanması üçün göstərilən cəhdlərin nəticəsiz qaldığını vurğulayan ümummilli lider 1993-cü ilin ortalarına qədər hakimiyyətdə olmuş AXC-Müsavat cütlüyünün nəinki yeni konstitusiya qəbul etmək üçün səylər göstərmədiyini, hətta Azərbaycanın SSRİ dövlətinin tərkibində olması, Kommunist Partiyasının rəhbər və istiqamətverici rolunun təsbit edilməsi barədə maddələrin də 1978-ci il Konstitusiyasından çıxarılmadığını təəssüflə qeyd etdi. Bu və digər dəyişikliklər yalnız 1993-cü ilin oktyabr ayında yeni seçilmiş Prezident Heydər Əliyevin andiçmə mərasimindən bir qədər qabaq onun təşəbbüsü ilə həyata keçirilmişdi.

Komissiyanın ilk iclasında dövlət başçısı tərəfindən qəbul ediləcək konstitusiyanın parametrləri açıqlandı. “Bizim yeni konstitusiyamız, şübhəsiz ki, birinci növbədə, Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün

bütün prinsipləri əks etdirməlidir. Yeni konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni, dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir. Bir sözlə, biz elan etmişik və mən bir daha bəyan edirəm ki, Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı, dünyəvi dövlət qururuq. Demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu proseslərini və bunu təmin etmək üçün bütün şərtləri, müddəaları konstitusiya özündə əks etdirməlidir. Biz elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun. Ona görə də üzərimizə düşən vəzifə həm şərəflidir, həm də çox çətindir. Konstitusiyamız Azərbaycanda məhz demokratik, hüquqi, dünyəvi, sivilizasiyalı bir dövlət qurmaq üçün əsas yaratmalıdır, onun əsas qanunu olmalıdır".

Həmin iclasda ulu öndər Heydər Əliyev özünü tamamilə yeni bir formada – konstitusiyaçı alim kimi göstərərək dünya konstitusiyaçılığının bütün problemlərini öyrəndiyini, görkəmli Qərb filosoflarının konstitusiya və dövlətlə bağlı elmi irsinə də mükəmməl yiyələndiyini nümayiş etdirdi. "Konstitusiya birinci növbədə, dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, ali icra, qanunvericilik, məhkəmə hakimiyyətləri – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Dövlət xalqın işi olmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyamızın əsasını təşkil etməlidirlər. …Müstəqil Azərbaycan dövlətinin Əsas Qanununda insan haqları, insan azadlıqları, insanların cəmiyyətdə bərabər hüquqa malik olması, bütün azadlıqlar öz əksini tapmalıdır".

Oktyabrın 12-də keçirilən iclasda konstitusiya yaradıcılığı məsələləri müzakirə olundu. Ümummilli lider Heydər Əliyev layihənin giriş hissəsində milli dövlətçilik ənənələrini, Azərbaycanın dövlət müstəqilliyi ilə əlaqədar fikirlərin əks olunması zərurətini qeyd edərək bu hissəsini Azərbaycanın dövlət müstəqilliyi ilə əlaqələndirməyin vacibliyini vurğuladı. Qeyd etdi ki, insan hüquqları, azadlıqları haqqında olan maddələr dəqiqləşdirilməli, təkmilləşdirilməlidir. Vətəndaşların vəzifələri daha dəqiq ifadə olunmalı, bu maddələr daha da genişləndirilməlidir. Naxçıvan Muxtar Respublikasının statusu, onun dövlət quruluşu haqqında maddələr olmalıdır.

İki gün sonra Konstitusiya komissiyasının növbəti iclasında qərara alındı ki, hazırlanmış layihə oktyabrın 15-də mətbuatda dərc edilsin. Azərbaycan Respublikasının Milli Məclisinə, dövlət orqanlarına, elm və tədris müəssisələrinə, siyasi partiyalara və ictimai birliklərə konstitusiya layihəsini mütəşəkkil müzakirə etmək, təklif, düzəliş və əlavələrini komissiyaya təqdim etmək tövsiyə olundu. Həmçinin qərara alındı ki, edilmiş bütün təkliflər komissiya tərəfindən nəzərə alınaraq layihə yenidən işlənsin və referenduma 10 gün qalmış respublika mətbuatında dərc edilsin.

1995-ci il noyabr ayının 2-də və 5-də keçirilən iclaslarda bir məsələ – Azərbaycanın dövlət dili haqqında məsələ müzakirə edildi. Taleyinə 18 ildən sonra ikinci dəfə öz dövlətinin konstitusiyasının layihəsini hazırlamaq qisməti düşən Heydər Əliyev yenidən oxşar xarakterli çətinliklə qarşılaşırdı. 1977-ci il SSRİ Konstitusiyasında hətta rus dilinin dövlət dili olması barədə müddəa olmasa da, o zaman Azərbaycana rəhbərlik edən Heydər Əliyev çox böyük qəhrəmanlıq göstərərək Moskvadakı partiya rəhbərliyinin ciddi narazılığına baxmayaraq, Azərbaycan dilinin respublikanın dövlət dili olduğunu Konstitusiyada təsbit edə bilmişdi. Bu dəfə narazılıqlar ölkənin daxilində idi. Buna baxmayaraq son nəticədə Heydər Əliyev müdrikliyi qalib gəldi. Komissiyanın noyabrın 5-də keçirilən iclasında çıxış edən 14 nəfər üzvünün demək olar ki, hamısı Azərbaycan dilinin dövlət dili olmasını təklif etdilər. Bununla da, ana dilimizin haqq etdiyi tarixi adı özünə qaytarıldı. Məsələnin daha etibarlı həllinin təminatı kimi, Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olduğunu təsbit edən 21-ci maddənin dəyişdirilməsi barədə təkliflərin gələcəkdə referenduma çıxarılması hüququnun məhdudlaşdırılması da konstitusiya səviyyəsində həllini tapdı. Təkcə bu işinə görə – belə işlər isə onun taleyində kifayət qədər çox olmuşdur – Heydər Əliyevin adı Azərbaycan xalqının tarixində əbədi yaşayacaqdır. Yeni hazırlanan konstitusiya layihəsində dövlət dilinin Azərbaycan dili adlandırılması məhz öz xalqını böyük məhəbbətlə sevən, onun on illərdən sonrakı taleyini düşünən böyük şəxsiyyətin mövqeyindən xəbər verir.

Ümumiyyətlə, dövlət dilinin müzakirəsinə həsr edilmiş yığıncaqlarda Heydər Əliyevin nitqləri, xüsusən, noyabrın 5-də keçirilən iclasdakı çıxışı Azərbaycan filologiya elmi tərəfindən on illər ərzində görülmüş işlərə, aparılmış tədqiqatlara məntiqi yekun vurdu. Təkcə dilimizin deyil, xalqımızın, bütün türk dünyasının tarixi ən yüksək elmi səviyyədə təhlil edildi. Bu çıxış hələ uzun illər ərzində mütəxəssislər tərəfindən öyrənilməli, tədqiq edilməlidir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyini öz həyat amalına çevirmiş, bütün həyatını bu nəcib iş uğrunda mübarizəyə həsr etmiş Heydər Əliyev Azərbaycanın gələcək Konstitusiyasının bu müstəqilliyə xidmət

etməsini, onun vasitəsilə bütövlükdə ölkəmizin, onun hər bir vətəndaşının sivil dünyaya inteqrasiya olunmasını, Azərbaycanın dünya dövlətləri sırasında öz layiqli yerini tutmasını arzu edirdi. Ulu öndər heç bir vaxt gizlətmirdi ki, belə yüksək bir məqama doğma ölkəsinin məhz onun rəhbərliyi dövründə qovuşması ilə fəxr edir, özünü Azərbaycanın dövlət müstəqilliyinin, onun sivil inkişafının təminatçısı sayır. 1995-ci il noyabr ayının 10-da komissiyanın doqquzuncu iclasında Heydər Əliyev komissiyanın referenduma qədərki fəaliyyətinə yekun vuraraq komissiya və işçi qrup üzvlərinə təşəkkürünü bildirdi: "Üzərimizə düşən məsuliyyəti biz vicdanla, xalqımıza, vəzifəmizə sədaqətlə həyata keçirmişik və gördüyümüz işə, xalqa təqdim etdiyimiz layihəyə görə fəxr edə bilərik. Hesab edirəm ki, bütün gələcək nəsillərdə meydana çıxacaq sualların hamısına burada cavab var. Yəni, biz tarixi bir sənədin yaradılmasının iştirakçılarıyıq və bununla fəxr edə bilərik. Mən şəxsən bu sənədin hazırlanmasına böyük məsuliyyət hissi ilə yanaşmışam. …Bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bu gün bəyan edirəm. Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd – siyasi, hüquqi sənəd yaratmışıq".

Beləliklə, 12 noyabr 1995-ci ildə ümummilli lider Heydər Əliyevin şah əsəri -158 maddə, 12 keçid müddəası, 5 bölmə və 12 fəsildən ibarət müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ümumxalq səsverməsi – referendum yolu ilə qəbul olundu. Azərbaycan dövlətçiliyi tarixində ən mühüm hüquqi-siyasi sənəd olan Konstitusiya bu gün də ölkəmizdə möhtərəm Prezident İlham Əliyevin həyata keçirdiyi nəhəng islahatlar prosesinin istinad etdiyi etibarlı normativ sənəddir. Azərbaycan yaşadıqca müstəqil ölkəmizin ilk Konstitusiyası hüquq tariximizə qızıl hərflərlə əbədi həkk olunacaqdır.

Qeyd etdiyimiz kimi, müəllifi ümummilli lider Heydər Əliyev olan Azərbaycan Respublikasının 1995-ci ilin 12 noyabrında qəbul edilmiş ilk Konstitusiyası müstəqil, hüquqi və dünyəvi Azərbaycan dövlətinin əsaslarını təsbit edən mühüm və bitkin normativ sənəddir. Lakin qanunvericilik prosesi daim inkişaf etdiyi, dinamik olduğu və dövrün tələblərinə uyğunlaşdığı zaman daha mükəmməl və praktik əhəmiyyət daşıyır. Bu baxımdan, 2008-ci ilin dekabr ayı, həm də Yeni Azərbaycan Partiyasının Konstitusiya islahatı təşəbbüsü ilə yaddaqalan oldu. Belə ki, daim cəmiyyətin istək və arzularının ifadəçisi olan YAP-ın Konstitusiya islahatı təşəbbüsü ilə çıxış etməsi səciyyəvidir. YAP 2008-ci ilin dekabr ayının 16-da Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklər edilməsi ilə bağlı Milli Məclisdə təşəbbüs irəli sürdü. Dekabr ayının 19-da Milli Məclis təklifi qəbul edərək, onu Konstitusiya Məhkəməsinə göndərdi. Konstitusiya Məhkəməsi dekabrın 24-də təkliflə bağlı müsbət rəy verərək, onu Milli Məclisə göndərdi. Milli Məclis dekabrın 26-da Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklər edilməsi ilə bağlı YAP-ın təşəbbüsünü dəstəkləyərək, 2009-cu il mart ayının 18-də referendum keçirilməsinə qərar verdi. Dekabr ayının 30-da Mərkəzi Seçki Komissiyası referendumla bağlı zəruri təlimatları hazırladıqdan sonra YAP dekabrın 31-də Yeni Azərbaycan" təşəbbüs qrupunu yaratdı. Xalqımız Konstitusiya islahatı təşəbbüsünü dəstəklədi və referendum (ümumxalq səsveıməsi) məntəqələrinə gələrək ölkəmizin davamlı inkişafını sürətləndirən hüquqi-normativ bazanın təkmilləşdirilməsinə səs verdi. Çünki bu təşəbbüs yalnız Əsas Qanunun təkmilləşdirilməsinə yönələn hüquqi prosedurdan əlavə, həm də ölkəmizdəki nəhəng islahatlar prosesinin ardıcıllığını təmin edən siyasi fəaliyyətdir.

**"Azərbaycan".-** 2009.- 7 may.- №98.- S. 2.

# MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRƏ QƏLBƏN BAĞLI LİDER

**Nurlana ƏLİYEVA,**
filologiya elmləri doktoru, professor,
YAP Qadınlar Şurasının sədri

**Bütün xalqların milli özünəməxsusluğunu şərtləndirən amillər onun dövlətçilik ənənələri ilə yanaşı, həm də zəngin maddi-mənəvi mədəniyyət nümunələri əsasında müəyyənləşir. Tarixən formalaşmış ənənələr, mental baxışlardan qaynaqlanan mənəvi-əxlaqi dəyərlər hər bir etnosun milliliyinin, kamillik səviyyəsinin təcəssümü olmaqdan savayı, həm də bəşər sivilizasiyasına gözəl töhfədir. Milli kimliyi ifadə edən bu dəyərlər, eyni zamanda, hər bir xalqın toxunulmaz xəzinəsidir.**

Azərbaycan xalqının əsrlər boyu formalaşmış yüksək mənəvi dəyərlərini pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya ötən əsrdə məhz ümummilli lider Heydər Əliyevin üzərinə düşmüşdür. Ulu öndər müstəqil Azərbaycana rəhbərliyi dövründə çıxışlarında hər zaman xüsusi vurğulayırdı ki, müasir dünyada qloballaşma proseslərinin nəticəsi kimi ortaya çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlər hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunması məsələsini də çağdaş zamanın aktual problemlərindən birinə çevirmişdir. Problemi aktuallaşdıran başlıca amil budur ki, total əxlaqın və çoxtərəfli inteqrasiyanın diqtələri bir çox hallarda əsrlərin "mirasına" – milli-mənəvi ideallara qarşı yönəlir. Ümummilli lider Heydər Əliyevin böyüklüyü rəhbər vəzifəyə gəldiyi gündən bu təhdidi düzgün qiymətləndirməsi, daim diqqət mərkəzində saxlaması və potensial təhlükə mənbəyinə çevrilməsinin qarşısını almasıdır. Heydər Əliyevin öz Vətəninə, xalqına, milli irs və ənənələrinə bağlılığı həmin təhdidlərin önündə də əzəmətli sipərə çevrildi, bütövlükdə xalqın genetik yaddaşını qorudu. Bu dahi şəxsiyyət hələ keçmiş sovetlər dövründə türkdilli xalqların min illərin sınağından çıxmış mədəniyyətinə, tarixinə, ənənəsinə həddən artıq bağlı olmaqla yanaşı, onların qorunması üçün əlindən gələni əsirgəmədi.

Tarixən yalnız milli iradənin, irs və ənənələrin, düşüncə sisteminin parlaq təzahürü kimi yaranmış dövlət modeli sərt sınaqlar qarşısında duruş gətirərək inkişafın əsasına çevrilir. Bu cür milli dövlət modeli isə, ilk növbədə, sağlam cəmiyyətdə intişar taparaq xalqın mənəvi dəyərlər sisteminə əsaslanır. Sağlam mənəviyyatlı, yüksək ixtisaslı insanlardan ibarət cəmiyyət qarşıya çıxan bütün problemləri asanlıqla həll edir, monolit bir qüvvə kimi fəaliyyət göstərə bilir. Cəmiyyətin sağlamlığını çoxlu əlamətlərdə axtarmaq olar, lakin bu əlamətlərin hamısı əsas bir göstəricidə özünü büruzə verir: ölkənin iqtisadi və mənəvi tərəqqi sürətində. Biz Azərbaycanda baş verən görünməmiş iqtisadi tərəqqinin şahidiyik. Bu sürət dünyanı da heyran qoymuşdur.

Lakin təkcə biz yox, bütün dünya gərgin bir templə, mürəkkəb proseslər fonunda tərəqqi edir. Ona görə iqtisadi və mənəvi inkişaf templərinin sabah necə olacağına heç bir təminat yoxdur. Sabahkı uğurlara yeganə təminat – sağlam cəmiyyət quruculuğuna diqqəti artırmaq, köklü mənəvi dəyərləri yeni nəslə və bütün cəmiyyətə daha dərindən və əzmlə aşılamaqdır. Mən "əzm" sözünü təsadüfi işlətmirəm. Bizim misilsiz mənəvi irsimiz olan Heydər Əliyev şəxsiyyəti bu anlayışla ayrılmaz surətdə bağlıdır. Əzmlə, ardıcıl olaraq xalq və milli dövlət dəyərlərinə xidmət onun şəxsiyyətinin əsas cizgiləri idi. Ulu öndər bütün həyatını, ömrünü, ağlını, zəkasını böyük milli məqsədlərə sərf edib. Buna görə bütün xalqımız ona minnətdardır.

Fəqət, minnətdarlıq azdır. Duyğular bizi Heydər Əliyev irsinin əsas məzmunundan yayındıra bilməz. Həmin məzmun unudulmaz rəhbərin xalqa xidmət idealları ilə bağlı idi. Onun tərəqqisinə xidmət edən işlər görmək dahi insanın ömrünün mənası idi. Rəhbərin dövlətçiliyi və millətçiliyi tarixi əhəmiyyət kəsb edən məqsədlərə tərəf ardıcıl və başlıcası isə, həmişə böyük nəticəli hərəkət idi. Bu da Heydər Əliyev şəxsiyyətinin çox qiymətli sosial və pedaqoji keyfiyyəti idi. Ulu öndərin nümunəsi bizi adi xidmətə yox, böyük tarixi və milli məqsədli xidmətə sövq edir. Xalqımızın sürətli tərəqqisinə nail olmaq planları böyük rəhbər üçün milli təhsil sisteminə gündəlik qayğı ilə ayrılmaz idi. Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanın təhsili əslində yenidən quruldu. Ümummilli lider hesab edirdi ki, qabaqcıl kadrları olmayan xalqın inkişaf etmiş dövləti ola bilməz. İqtisadiyyatda yaratdığı yeni sənaye sahələri üçün ulu öndər keçmiş sovetlər birliyinin bütün qabaqcıl ali məktəblərində kadrlar hazırladır, minlərlə gənci respublikadan kənara təhsilə göndərirdi. Bilik Günü məktəblərə gedir, təhsilimizin gələcəyi barədə öz vəsiyyətlərini şərh edirdi. Böyük rəhbər bu yanğısı, diqqəti və idrakı ilə həm də hamımızın müəllimi idi.

Hər dövrdə, hər cəmiyyətdə tərbiyə o halda uğurlu olur ki, onun əyani şəxsi nümunəsi olsun. Tarix bu nümunəni bizə bəxş etməklə gənc nəslin tərbiyəsi işinə böyük töhfə vermişdir. Milli ruhda tərbiyə alan insanın ən yaxşı ideal nümunəsi ümummilli liderin mübarizələr və qələbələr dolu bioqrafiyasıdır. Etiraf etməliyik ki, biz bu bioqrafiyanın əsas mənasını, pedaqoji fəlsəfəsini kifayət qədər tədris və təbliğ edə bilmirik. Ulu öndərin

həyat yolunu əks etdirən materialların, əyani vasitələrin, kitab və filmlərin azlığı və natamamlığı hiss olunur. Mövcud kino materiallarında sovet dövrünün təbliğat ştampları çox qabarıqdır. Bu ştampların arxasında böyük şəxsiyyətin milli səciyyəsi, milli zəmin və dəyərlərlə bağlılığı öz əksini bəzən çox zəif tapmışdır. Heydər Əliyev şəxsiyyətindən söhbət gedəndə bura Azərbaycanı da əlavə etmək lazım gəlir. Çünki Heydər Əliyev şəxsiyyəti çoxdan Azərbaycanla bütövləşmiş, onun ruhu Azərbaycana, Azərbaycanın ruhu Heydər Əliyevə keçmişdir.

Ümummilli liderin Vətəninin milli-mənəvi dəyərlərinə ruhən bu qədər vurğunluğunu da, görünür, elə bu bağlılıqda axtarmaq lazımdır. Heydər Əliyevin milli-mənəvi dəyərlər məsələsində irəli sürdüyü prinsiplər, həmin problemin həlli ilə bağlı müəyyənləşdirdiyi aydın xətt, atdığı addımlar bəzən əsl mahiyyəti üzrə şərh olunmur və elmi yanaşmalarda müəyyən yanlışlıqlara yol verilir. Ümummilli liderin bu sahədə xidmətlərinin, sadəcə olaraq, Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə, elminə, təhsilinə, səhiyyəsinə yüksək qayğı kimi səciyyələndirilməsi bu işlərin gerçək miqyası üçün kifayət etmir. Çünki görülən işlər, sadəcə, qayğı olmaqla məhdudlaşa bilməz. Bütün bunlar ulularımızdan bizə gəlib çatan müqəddəs irsin göz bəbəyi tək qorunaraq gələcək nəsillərə əmanət edilməsi, Azərbaycan şüurunun, mentalitetinin, əxlaqının bütün dünyada təbliği, qəbul olunması üçün atılan düşünülmüş, məqsədyönlü addımlardır.

Tarixdə xalqına, onun maarifinə xidmət edən rəhbərlər az olmayıb. Amma onların milli dəyərlərdə təcəssüm tapmasına nədənsə nadir hallarda təsadüf olunur. Heydər Əliyev məhz belə rəhbər və dövlət xadimi idi. Milli sözünün ehtiyatla işlədildiyi sovet dövründə də, Naxçıvanda yaşayanda da, müstəqillik dövründə də dahi rəhbər ən Böyük Azərbaycanlı olduğunu parlaq təcəssüm etdirən sadə və eyni zamanda, zəngin bir sima idi. Ulu öndərin ana dilimizdə parlaq və sərrast nitqi bu dahi insanı əbədi olaraq millilik rəmzi kimi anmağımız üçün kifayətdir.

Ümummilli liderin xalqımız qarşısında xidmətləri çoxdur. Lakin onların arasında böyük rəhbərin natiqlik irsi xüsusilə müqəddəsdir. Heydər Əliyevin nitqinin xəlqiliyi azərbaycançılığın ən parlaq təcəssümü idi. Bu gün təsəvvür etmək çətindir ki, sərbəst işlənən doğma ana dilimiz bir vaxtlar öz varlığını yaşatmaq üçün mübarizələr aparırdı. Həmin mübarizələrin tarixində Heydər Əliyevin danılmaz rolu olmuşdur. Ümummilli lider ana dilimizin azadlığı uğrunda iki cəbhədə çalışırdı. Birinci cəbhə bu insanın özünün ana dilində danışması idi. ikinci cəbhə isə qanunverici və rəsmi yollarla dilimizin statusunun artırılması xətti idi. O zamanlar belə bir mübarizəyə qoşulmaq böyük cəsarətin, qətiyyətin və ən əsası isə Vətənə, millətə, onun milli sərvətinə sonsuz məhəbbətin nəticəsi idi.

Ulu öndərin ana dilində ilk nitqləri tarixi məna kəsb edirdi. Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişi ilə başlanan milliləşmə prosesi, mən deyərdim ki, bu nitqlərin təsiri ilə başladı. Həm də mühümü odur ki, onlar əyalətdə, xalq kütləsinin içində başladı. Sonralar ulu öndər Bakıdakı tədbirlərdə də ana dilində danışmaq üçün fürsətlər tapdı. Yaradıcılıq ittifaqlarının, xüsusilə Yazıçılar Birliyinin məclislərində Azərbaycan türkcəsində parlaq çıxışlar etməyə başladı. Rəhbərin rəsmi partiya tədbirlərindəki çıxışları ana dilimizin heç vaxt işlənməmiş siyasi üslubunu yaratmışdı. Bunun özü də tarixi bir xidmət idi. Yad dildə danışan dövlət milli ola bilməz. Ona görə ulu öndərin nitqləri onun rəhbərlik etdiyi hakimiyyətdə də doğmalıq hissləri yaradırdı. Dövlət məmurları anlayırdılar ki, Heydər Əliyevin yorulmadan qurub yüksəltdiyi Azərbaycan iqtisadiyyatı xalqımızındır və onun dövləti üçündür. Bunu dərk edən, ulu öndərə sidqlə inanan minlərlə insan sonralar Azərbaycanın müstəqilliyini müdafiə etdi, bu müstəqilliyin memarının yaxın köməkçisi və silahdaşı oldu.

Yazıçı və sənət adamları ilə görüşəndə ulu öndər yeni bir elmi-ədəbi üslubda danışmağa başladı. Həm də parlaq şəkildə, ana dilinin söz imkanlarının bütün qatlarına, çalarlarına zərgərcəsinə bələdliklə danışmağa başladı. Ümummilli liderin gözəl nitqi yazıçıları, ədəbiyyatçı alimləri, illərlə mühazirələr oxuyan professorları da heyran qoyurdu. Böyük rəhbər ana dilini harada belə öyrənmişdi? Ulu öndərin yeniyetmə vaxtından işlədiyi təhlükəsizlik orqanlarında ana dilində danışmağa macal belə yox idi. Bəs bu parlaq nitq qabiliyyəti haradan idi? Əlbəttə ki, onun genetik yaddaşından gəlirdi. Heydər Əliyev bu dilin parlaq təcəssümü olan bir mühitdə, sadə azərbaycanlı ailəsində formalaşmışdı.

Ümummilli liderin canlı ana dilini öz nitqi ilə zinətləndirməsi onun bu sahədəki xidmətlərinin bir tərəfi idi. Həmin irsin ikinci tərəfi ulu öndərin rəsmi yolla da ana dilimizin statusunu qaldırmaq üçün misilsiz xidmətləri idi. Mən onlardan ancaq birinin üzərində durmaq istəyirəm. Bu, 1978-ci ildə Konstitusiya qəbul olunanda Azərbaycan dilinin dövlət dili kimi göstərilməsi idi. Həmin dövrdə təhlükəli bir nəzəriyyə ortaya atılmışdı: iddia olunurdu ki, guya sovet dövlətində yaşayan bütün insanlar vahid bir millətə – sovet xalqına çevriliblər. Bu, milli dillərə, mədəniyyətlərə qarşı yönəlmiş nəzəriyyə idi. Belə vaxtda Heydər Əliyev Elmlər Akademiyasında böyük alimlərin iştirakı ilə Konstitusiya layihəsinin müzakirəsini təşkil etdi. Rəhbərin irəli sürdüyü qeyri-rəsmi istiqamət nəticəsində yığıncaqda Azərbaycan dilinin Konstitusiyada dövlət dili kimi qəbul edilməsi barədə təklif verildi. Milli ziyalı təbəqəsinin bu təklifini Moskva qulaqardına vura bilmədi. Bu qeyddən sonra ana dilini inkişaf etdirmək, bu dildə elmi və bədii yaradıcılığı genişləndirmək, televiziya, mətbuat, kino,

teatr quruculuğunda milli dilin tətbiqini gücləndirmək daha asan oldu. Kino kimi mühüm sahədə Moskva Bakıdan gələn ssenariləri belə rus dilində tələb edirdi. Ona görə kinostudiya əcnəbi millətlərdən olan qələm adamları ilə dolmuşdu. Bunu aradan qaldırmaq üçün ulu öndər kinostudiyaya ana dilinə, xalqa bağlı kadrlar cəlb etdi. Məhz Heydər Əliyevin vaxtında və onun bilavasitə himayəsi ilə xalqımızın tarixi qəhrəmanlıq keçmişini əks etdirən filmlər kinomuzun əsas mövzusu oldu. “Nəsimi”, “Babək”, “Dəli Kür” kimi filmlər gəncliyin milli ruhda tərbiyəsində və sonralar kütləvi surətdə müstəqillik hərəkatına qoşulmasında böyük rol oynadı. İnamla demək olar ki, Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlməsi ədəbiyyat və incəsənətimizdə milli cərəyanın yüksəlişinə səbəb oldu. Ulu öndər Bəxtiyar Vahabzadə, Xəlil Rza, Məmməd Araz, İsa Hüseynov, Anar, Əkrəm Əylisli kimi milli zəminə bağlı və istedadlı sənətkarları daim himayə edirdi. Belə sənətkarlar isə ədəbiyyatın milli varlığımız, dəyərlərimizlə bağlı mövzularını uğurla işləyib inkişaf etdirirdilər. Heydər Əliyevin irsinin ayrılmaz bir qanadı onun tariximizə və tarix elmimizə qayğısı ilə bağlıdır. Milli keçmişimizi dərindən mənimsəmiş ulu öndər milli dövlət üçün tarixin və tarix elminin fundamental əhəmiyyətini gözəl bilirdi. Ona görə Nizami Gəncəvinin və Nəsiminin yubileylərinin dünya miqyasında qeyd olunması məqsədilə partiya qərarları verildi. O zaman bu qərarlar inqilabi bir təzəlik idi. Bunlar cəsarət nümunəsi idi. Ona qədər Azərbaycanın Rusiya tərkibinə daxil olmasının 150 illiyi kimi bədnam yubileylər qeyd edilmişdi. Lakin Heydər Əliyev böyük ədəbi yubileyləri xalqın varlığını üzə çıxarmaq, onun milli tarixini araşdırıb təbliğ etmək formasına çevirdi. Böyük şəxsiyyətin nüfuzu qarşısında Moskva da belə hallara etiraz edə bilmirdi.

Heydər Əliyevin mənəvi irsinin və milli tarix konsepsiyasının mühüm bir istiqaməti Azərbaycan Sovet Sosialist Respublikasının tarixinin milli xəttini görməsi, ardıcıl surətdə üzə çıxarması və təbliğ etməsi idi. Hələ indiyə qədər bu konsepsiyanın əhəmiyyətini dərk etməmək hallarına təsadüf olunur. Ulu öndər çox haqlı olaraq hesab edirdi ki, bütün səhv və əyintilərlə yanaşı, 70 illik sovet hökuməti zamanında xalqımız misilsiz tərəqqi yolu keçib və başlıcası isə, müstəqillik üçün iqtisadi və dövləti əsaslar yaradıb. Həmin əsaslar olmadan indiki müstəqil dövlətimizin varlığı da mümkün deyildi.

Heydər Əliyev sovet Azərbaycanı tarixində Nəriman Nərimanovla başlanan, Səməd Vurğun, Mirzə İbrahimov, Mir Cəlal, Ziya Bünyadov, Bəxtiyar Vahabzadə, İlyas Əfəndiyev, İsa Hüseynov kimi şair, yazıçı və alimlərin fəaliyyətini qırılmaz milli xətt sayırdı. Təsadüfi deyil ki, hakimiyyətə gəldiyi vaxtdan ilk böyük yubiley 1970-ci ildə Nəriman Nərimanova və 1976-cı ildə Səməd Vurğuna həsr edildi. Onların fəaliyyəti və irsi ulu öndər üçün əziz və misilsiz dərəcədə qiymətli idi. Ümummilli lider hələ o zaman mübahisələr doğuran “26-lar” filminin çəkilişində N. Nərimanovun gözəl obrazının yaradılmasına nail oldu. Belə deyirlər ki, Səməd Vurğun yaradıcılığını ulu öndər əzbər bilirdi. Unudulmaz rəhbər sovet vaxtı yaranmış mədəniyyətimizə böyük məhəbbətlə yanaşır və bunu bizə aşılamağa çalışırdı.

N. Nərimanov şəxsiyyəti ulu öndər üçün həm də erməni fitnəkarlığına qarşı mübarizə rəmzi idi. Müstəqillik ərəfəsində qanlı-qadalı problem yenidən qarşımıza çıxdı. Ölkəmizin ərazilərinin bir hissəsi işğal olundu. Bu gün Dağlıq Qarabağ məsələsi şagirdlərə milli yaddaş tərbiyəsinin tərkib hissəsi kimi izah olunmalıdır. Heydər Əliyevin bioqrafiyasının əsas xətlərindən birini onun erməni fitnəkarlığına qarşı mübarizəsi təşkil edir. Respublikanın heç bir rəhbəri Azərbaycanda erməni fitnəsinə qarşı ulu öndər qədər ardıcıl və sərt mübarizə aparmayıb. Bu mübarizənin dərsləri bu gün çox aktualdır, ondan hər bir müəllim təcrübəsində faydalana bilər və faydalanmalıdır.

Azərbaycana rəhbərlik etdiyi bir qərinədən artıq dövr ərzində Heydər Əliyev xalqımızın milli-mənəvi dəyərlərini sevərək öz varlığında yaşadıb, əməllərində bu dəyərləri müqəddəs, toxunulmaz bir xəzinə kimi qoruyub, onun əbədiyaşarlığını təmin edib. Fırtınalardan, qasırğalardan keçən həyatında bu torpağa rifah gətirən Heydər Əliyev mütərəqqi insanların məhəbbətini, ehtiramını qazandı, cılız, paxıl, riyakar, xalq, vətən təəssübkeşliyindən uzaq olanların təqibi, şəri, böhtanı ilə üzləşdi. Fəqət, sarsılmadı. *“Ən böyük şəxsiyyətlər özlərindən çox mənsub olduqları cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatını həsr edən insanlardır”* – dedi.

Heydər Əliyevin baxışlar sistemində din yalnız mənəvi dünyanın pəncərəsindən boylanır. Ulu öndər dinin siyasi alətə çevrilməsinə, insanların müqəddəs inanclarının siyasi proseslərin təsiri ilə adiləşib dəyərini itirməsinə heç vaxt imkan verməmişdi. Ulu öndər bu inancları bütün siyasi proseslərin fövqündə saxlamış və qorumuşdu. Milli dövlətçiliyin konkret mənəvi dəyərlər sistemi əsasında vahid məqsədə yönəldilməsi, xalqın tarixi yaddaş və mənəvi irsinin mühafizəsinə xidmət edən irimiqyaslı fəaliyyətin həyata keçirilməsi, milli ruhlu nəslin yetişdirilməsi, zəngin daxili aləmə malik azərbaycanlı obrazının bütün dünyada tanıdılması üçün zəruri olan qüvvə və potensialın səfərbər olunması Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider ölkədə mütərəqqi islam dəyərlərinin inkişafına xüsusi diqqət yetirməklə yanaşı, başqa dinlərin inkişafına da tolerant mühitin yaradılmasını təmin etmişdi. Dini konfessiyalar arasında qarşılıqlı hörmətə söykənən münasibətlərin formalaşmasına çalışmışdı. Milli-dini mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşa bu torpaq üçün milli

yiyəlik hissi aşılamışdı. Dini tolerantlığın polietnik mövcudluğunun qarantı kimi Azərbaycançılıq ideologiyasını irəli sürərək onun praktik nəzəriyyəyə çevrilməsinə nail olmuşdu.

Bir sözlə, dilimizin, dinimizin, tariximizin, incəsənətimizin şərəfli səhifələrinin şəriksiz müəllifi olan ulu öndər bu mənəvi dəyərlərə ömrünün sonuna qədər sadiq qalmışdı.

Müstəqilliyin ilk illərində vətəndaş tərbiyəsi ideoloji və tarixi əhəmiyyət daşıyan bir problem idi. Bu vacib vəzifənin həyata keçirilməsi üçün Azərbaycan vətəndaşının ideya-siyasi düşüncəsini formalaşdırmaq lazım gəlirdi. Həmin istiqamətdə xeyli iş görmüş dövlət rəhbəri *"Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Bu gün mənəvi tərbiyə keçmiş illərdən daha çox lazımdır",* – deyirdi. Həm də öz şəxsi təcrübəsində gördüklərindən bu qənaətə gəlirdi. Ulu öndərin tükənməz enerjisinə, dərin zəkasına, müdrik ağlına, dünya şöhrətinə, sarsılmaz nüfuzuna qısqanclıqla yanaşanlara, haqsız hücumlara, böhtançılara, paxıllara öz möhtəşəm ağlı ilə cavab verirdi: "Paxıllıq, şər, böhtan xam at kimidir – sahibini heç bir zaman mənzil başına sağ-salamat çatdıra bilməz", – deyirdi.

Ümummilli lider Heydər Əliyev xalqın milli-mənəvi dəyərlər sistemində ailənin rolunu daim müstəsna dəyərləndirirdi. Böyük strateq ailəni, eyni zamanda, ülvi və müqəddəs dəyərlərin tərənnümçüsü kimi qiymətləndirir, xalqın mənəvi kamillik səviyyəsinin təmin olunmasında, genefondunun saflığının qorunmasında əhəmiyyətini daim önə çəkirdi. Mübaliğəsiz deyə bilərik ki, bu gün Azərbaycanda minlərlə yeni qurulan ailənin müqəddəs örnək kimi istinad edəcəyi qürur və fəxarət ünvanı var. Ulu öndər Heydər Əliyevin möhkəm mənəvi təməl və niyyətlər, ülvi arzular üzərində yaratdığı ailə modeli hər bir azərbaycanlıda böyük rəğbət hissi doğurur. Bu ailənin ən böyük xoşbəxtliyi isə onun hər bir üzvünün cəmiyyət üçün gərəkli, faydalı şəxsiyyət olmasındadır. Bəli, Heydər Əliyevin möhkəm təməl üzərində əsasını qoyduğu ailə öz xoşbəxtliyini məhz xalqa layiqli xidmətdə görür!

Ümummilli lider Heydər Əliyev müdrik dövlət rəhbəri olmaqla yanaşı, həm də mütərəqqi azərbaycanlı dəyərlərini parlaq şəxsiyyətində yaşadan, cəmiyyət üçün örnək sayılan ailə başçısı idi. Böyük şəxsiyyət kimi yetişən, xoşbəxtliyi əqli kamillikdə, təmizlikdə və halal zəhmətdə axtaran, ailənin saf sevgi üzərində qurulması vacibliyini erkən yaşlarından dərk edən Heydər Əliyev cəmiyyətdə öz layiqli yerini tutmuş, saf təməl üzərində qurduğu ailənin bütün qayğılarını öz üzərinə çəkmişdi.

Bəzən özümüzdən də xəbərsiz yaradılışımızdan bizimlə birgə ali bir duyğu doğulub, köksümüzün altında göyərib boy atır. Zaman keçdikcə daha da əlvanlaşan, daha da müqəddəsləşən, hiss və düşüncələrimizə hakim kəsilən o duyğu dar məqamlarda ən yaxın köməkçimizə çevrilir. Həyatdan əlimizi üzəndə o duyğu imdadımıza çatır, inamımızı, istinadgahımızı itirəndə o duyğu bizim üçün inama, istinadgaha çevrilir. Nə vaxtsa bu duyğunu sevgi adlandırırıq. Mental yaddaşımız Leyli və Məcnun, Əsli və Kərəm, Yusif və Züleyxa, Tahir və Zöhrə, İlham və Fərizə misalında ilahi sevginin mükəmməl nümunələrini xatırlayır. Heydər Əliyev öz ömür-gün yoldaşı, mərhum akademik Zərifə xanıma olan sonsuz sevgisi və bu sevginin etirafı ilə mənəviyyat tariximizdə bütöv nəsillərə örnək ola biləcək məhəbbət rəvayəti də yaratdı.

Saf sevgiyə qovuşmaq, qəlbinə yaxın bir insanla ailə həyatı qurmaq üçün sıralarında çalışdığı keçmiş Dövlət Təhlükəsizlik Komitəsinin rəhbərliyi ilə uzun müddət mübarizə aparmalı olan, bu müqəddəs amal uğrunda hətta tutduğu vəzifəni və gələcək karyerasını itirməkdən belə çəkinməyən Heydər Əliyev yüksək mənəvi keyfiyyətləri ilə həm də milli ideallara bağlılığını sübuta yetirdi. Keçmiş rejimin ideoloji-siyasi buxovları, yazılmamış "qanunları" onun görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqının nicatına sərf etmiş professor Əziz Əliyevin qızı, yüksək intellekti, savadı, nəcib, humanist keyfiyyətləri, geniş dünyagörüşü ilə seçilən Zərifə xanım Əliyeva ilə müqəddəs ittifaqa – nikaha girməsinə heç vəchlə mane ola bilmədi.

Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri o qədər zəngin və çoxcəhətlidir ki, fəaliyyətinə nəzər salarkən bu dahi insanın nəcib və xeyirxah şəxsiyyət olması faktı bir daha təsdiqini tapır. Zərifə xanımın fitri istedada malik novator alim, pak və nadir insan kimi yaşadığı mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir alim və həkim üçün mənəviyyat dərsi, kamillik zirvəsidir. Elmi, tibbi və pedaqoji fəaliyyəti, hər kəs üçün örnək sayılacaq şəxsi keyfiyyətləri, xeyirxah məqsədlərə köklənmiş nəcib xarakteri, ziyalılığı və sadəliyi ilə Zərifə xanım Əliyeva həm də ailəsinin sağlam təməl üzərində qurulmasına çalışmışdır. Bu nəcib şəxsiyyəti yaxından tanıyanlar hər zaman deyirlər ki, Zərifə xanım valideynləri üçün layiqli övlad, məşhur alim, tanınmış həkim, istedadlı insan, sədaqətli ömür yoldaşı qayğıkeş ana olub! Məhz bu diqqət və qayğının nəticəsi kimi, həm qızı Sevil xanım Əliyeva, həm də cənab İlham Əliyev gənc yaşlarında yüksək ali təhsil almış, bir neçə xarici dili mənimsəmiş, nəcib şəxsi keyfiyyətləri, təşəbbüskarlıqları ilə cəmiyyətdə layiqli yerlərini tapmışlar.

Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olduğunu son beş ildə əməli addımları ilə sübuta yetirən Azərbaycan Prezidenti İlham Əliyev regionda cərəyan edən proseslərin

istiqamətini müəyyənləşdirən, ona təsir göstərən ciddi fenomenə çevrilmişdir. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı statusu təkcə onun siyasi portretini zənginləşdirən əlavə ştrix deyil, həm də siyasi kontekstdə cənab İlham Əliyevin siyasi çəkisini artıran amil kimi nəzərə çarpır. Bu gün Prezident İlham Əliyevi, eyni zamanda, Azərbaycanın milli-mənəvi dəyərlərinin ən qüdrətli mühafizəçi-si kimi görürük. Prezident İlham Əliyevin konsepsiyasına görə, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti məhz milli dövlətçilikdir. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir. Dövlətçilik hisslərinə malik olmadan xalq milli dövlətini inkişaf etdirə bilməz.

Bu gün ulu öndərin ali ideallarının gerçəkləşməsində cənab İlham Əliyevlə birgə onun xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva da yaxından iştirak edir. Yüksək mənəvi-əxlaqi dəyərləri parlaq şəxsiyyətində cəmləyən Azərbaycan qadını kimi Mehriban xanım Əliyeva demokratik, hüquqi dövlət quruculuğu yolunda sürətlə irəliləyərək sivil dəyərləri əxz edən Azərbaycan cəmiyyətinin həyatına birinci xanım ənənəsini də gətirmişdir. Əslində, nə vaxtsa çağdaş dünyanın bizim dövlətçilik irsimizdən mənimsədiyi, tarixin hansısa mərhələsində unutduğumuz bu ənənələrin müstəqil Azərbaycan dövlətində yenidən bərpası faktı məhz Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Görünür, Mehriban xanım Əliyevanın üzərinə götürdüyü bu xeyirxah missiya tarixi bir qanunauyğunluq, həyatın diktə etdiyi ilahi harmoniyadır. Mehriban xanım Əliyeva akademik Mir Cəlal Paşayevin və milli mətbuatımızın patriarxı, minlərlə Azərbaycan jurnalistinin ustadı olan qüdrətli qələm sahibi Nəsir İmanquliyevin ocağından nur alıb. Onun həyat müəllimləri isə özünün də qeyd etdiyi kimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və Azərbaycan qadınının şərəf mücəssəməsi Zərifə xanım Əliyeva olub.

Ölkənin birinci xanımı Mehriban Əliyevanın milli-mənəvi irsimizin qorunması istiqamətində ardıcıl səyləri də Azərbaycanın milli-mənəvi dəyərlərinə yüksək sayğının təzahürüdür. Xalqına və dövlətinə qəlbən bağlı olan Mehriban xanım Əliyeva həyatının mənasını nəcib və xeyirxah işlərdə axtaran parlaq şəxsiyyətlərdən olaraq xalqının zəngin milli-mənəvi irsinin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması naminə əzmlə çalışır. Azərbaycanın birinci xanımının fəaliyyəti milli-mədəni incilərin qorunub saxlanılması, tarixi abidələrin bərpası, dünya miqyasında təbliği ilə yanaşı, saf və nəcib dəyərlərin ictimai şüurda möhkəmlənməsinə, özünə güclü dayaqlar tapmasına yönəlib. Heydər Əliyev Fondu xalqın milli varlığını özündə yaşadan maddi-mənəvi və intellektual irsə diqqət və qayğı ilə yanaşır, milli mədəniyyətimizin dünya arenasına çıxmasına və təbliğinə ciddi dəstək verir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən çoxşaxəli layihələri birləşdirən ümumi ortaq xətt isə məhz milli genefondun qorunması, saf dəyər və duyğuların ictimai şüurda intişar tapmasıdır. Təsadüfi deyil ki, bu istiqamətdəki fəaliyyətinə görə Mehriban xanım Əliyeva YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri adına layiq görülüb. Bu, ümumilikdə dünyanın Mehriban xanım Əliyevanın timsalında bütün Azərbaycan xalqına, milli mədəniyyətimizə, folklorumuza, tariximizə, dilimizə, incəsənətimizə göstərdiyi diqqət kimi qəbul olunmalıdır. Bu, həm də Mehriban xanım Əliyevanın timsalında Azərbaycan qadınının öz fədakarlığını və bacarığını beynəlxalq miqyasda təsdiq etməsinə əyani bir sübutdur.

Düşünürəm ki, ömrünün gənclik illərini Heydər Əliyevin ocağında keçirən, onun ali mənəvi, millimental dəyərlərindən bəhrələnən, Mir Cəlal Paşayevin ocağının nəcib ənənələrini əxz edən, Heydər Əliyevin və Zərifə xanım Əliyevanın mənəvi xəttini örnək götürən nəcib insan – Azərbaycanın birinci xanımı məhz belə də olmalı idi. Heydər Əliyev mənəvi dəyərlərinə sədaqətli!

**“Azərbaycan”.**- 2009.- 7 may- №98.- S. 4.

# HEYDƏR ƏLİYEVİN İKT SİYASƏTİ MÜASİR MƏRHƏLƏDƏ

**Əli ABBASOV,**
Azərbaycan Respublikası rabitə
və informasiya texnologiyaları naziri

Ümummilli lider Heydər Əliyevin sosial-iqtisadi inkişaf strategiyasının Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində son illər ölkəmizdə güclü inkişaf müşahidə olunur və Azərbaycan inkişaf dinamikasına görə dünya ölkələri sırasında öndə gedir. Prezident İlham Əliyevin təbii sərvətlərdən yüksək texnologiyalara aparan iqtisadiyyatın formalaşması siyasəti öz bəhrələrini verməkdədir. Bunun nəticəsidir ki, son 3 ildə qeyri-neft sektorunda artım tempi təqribən 11-15 faiz olaraq, ümumdünya orta iqtisadi artım tempini 2-3 dəfə üstələyir.

Dünyanın qabaqcıl ölkələrinin təcrübəsi sübut edir ki, elm, təhsil və iqtisadiyyatı əhatə edən sistemli siyasət hər bir ölkənin davamlı və dayanıqlı inkişafının başlıca təminatçısıdır. Bu siyasətin aparıcı qüvvəsi olan informasiya-kommunikasiya texnologiyaları (İKT) son illər sürətlə inkişaf edərək bütün sahələrdə və gündəlik həyatda insan fəaliyyətinin, sosial-iqtisadi münasibətlərin tərkib hissəsinə çevrilmişdir. İKT-nin ən yeni nailiyyətləri idarəetmə, təhsil, səhiyyə, biznes, turizm və bank xidməti kimi sahələrdə tətbiq edilərək cəmiyyətin hər bir üzvünə mövcud imkanlardan faydalanmağa şərait yaradır. Bu baxımdan yeni texnologiyalar üzrə dövlət siyasəti cəmiyyətin ictimai və siyasi təfəkkürünü qabaqlamalı, yaxın onilliklər üçün bu istiqamətdə görüləcək işlərin strateji xəttini müəyyənləşdirməlidir. Azərbaycan Respublikasında da İKT sahəsinin inkişaf etdirilməsi üzrə dövlət siyasəti bu prinsip üzərində qurulur və beynəlxalq təcrübəyə əsaslanır.

Azərbaycanın inkişaf tarixinin son 40 ilinə nəzər salsaq, gələcəyə istiqamətlənmiş, dayanıqlı inkişafı təmin edən, elm və texnologiyaların inkişafını şərtləndirən, iqtisadiyyatın hər bir sektorunun davamlı inkişafına yönəlmiş və cəmiyyətin hər bir üzvünün rifahına xidmət edən müdrik siyasətin təzahürlərini görərik. Bu siyasətin tərkib hissəsi kimi, Azərbaycanda rabitənin, elektron avadanlıqlar və informasiya texnologiyaları sektorunun inkişafının geniş vüsət alması məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın yaxın onilliklər üçün inkişaf perspektivlərinin biliklərə əsaslanan iqtisadiyyatla birbaşa bağlı olduğunu uzaqgörənliklə düşünən ümummilli lider informasiya-kommunikasiya texnologiyaları sektorunun inkişafının təməlini hələ ötən əsrin 70-ci illərində qoymuşdur.

1970-80-ci illərdə Elmlər Akademiyasında, universitetlərdə və sahə institutlarında elektronika, avtomatika və hesablama texnikası üzrə istedadlı alimlər və təcrübəli mütəxəssislər yetişdirildi, elektron avadanlıq istehsal edən zavodlar tikildi. Kibernetika İnstitutu, Kosmik Tədqiqatlar Mərkəzi, informasiya-Kommunikasiya Elmi Mərkəzi, "Neft-qazavtomatika" və digər elmi-tədqiqat müəssisələri yaradıldı. Heydər Əliyevin birbaşa köməyi ilə Azərbaycana ilk böyük elektron hesablama maşını – BESM-6 gətirildi. Respublika avtomatlaşdırılmış idarəetmə sistemləri – RASU – "Azərbaycan", respublika kompüter şəbəkəsi, bütün SSRİ-də tanınan və istifadə olunan avtomatlaşdırılmış neftçıxarma idarəetmə sistemləri və kompleksləri işlənib hazırlandı. "AZON", "NORD" elm-istehsalat birlikləri, Radiozavod, elektron hesablama maşınları zavodu, "Peyk", "Ulduz" kimi nəhəng istehsalat kompleksləri tikilib istifadəyə verildi. Sonralar Naxçıvanda, Tərtərdə, Mingəçevirdə, Şirvanda, Gəncədə, Sumqayıtda və Bakıda 30-dan artıq elektron və cihazqayırma zavodları işə salındı. Beləliklə, respublikada yeni və son dərəcə əlverişli bir sənaye sahəsi təşkil olundu. Onun elmi təminatı yaradıldı. Elmi-tədqiqat institutlarının nəzdində "Kristal", "Registr", "Tellur", "Kibernetika", "Biotex", "Mikroelektronika", "Kaskad" xüsusi konstruktor büroları fəaliyyət göstərməyə başladı. Bakı Dövlət Universiteti, Dövlət Neft Akademiyası, Azərbaycan Texniki Universiteti, Dövlət İqtisad Universiteti, Sumqayıt Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti kimi ali təhsil müəssisələrində İKT ixtisasları üzrə mütəxəssislər hazırlanması üçün maddi-texniki baza yaradıldı. Beləliklə, indi bütün dünya tərəfindən müasir sosial-iqtisadi tərəqqinin inkişaf sxemi kimi qəbul edilən "Universitet-İqtisadiyyat və Hökumət" üçqat spiral modelinin tətbiqini Heydər Əliyev Azərbaycanda həyata keçirdi.

Müstəqilliyin ilk illərində ölkəmizin düçar olduğu gərgin vəziyyətdə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev, hətta ağır şəraitdə belə, informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə xüsusi diqqət yetirməyə imkan tapır və bu sahədə inkişafa nail olmaq üçün daim səylər göstərirdi. Azərbaycanla Amerika qitəsi arasında birbaşa rabitənin yaradılmasına imkan verən peyk-rabitə sisteminin, "Baksell" və "Azərsell" birgə müəssisələrinin yaradılması ilə ölkəmizdə mobil rabitənin inkişafının əsası qoyulmuşdu. İlk beynəlxalq telefon stansiyasının yaradılması Heydər Əliyevin bu istiqamətdə atdığı vacib addımlar idi. Azərbaycanda rabitə sektoruna ilk investisiyaların cəlb edilməsi də ümummilli liderin səyləri nəticəsində mümkün olmuşdur. Ölkəmizin radio-televiziya yayımının müasir tələblərə uyğun təşkili, milli

televiziya proqramının süni peyk vasitəsilə yayımlanmağa başlanılması, Avropa və Yaxın Şərq dövlətləri ilə yanaşı blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının əhalisinin milli televiziya proqramlarını seyr etmək imkanı qazanması məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Bu gün Azərbaycanın İKT sahəsindəki fəaliyyəti məhz ümummilli lider Heydər Əliyevin böyük uzaqgörənliklə müəyyənləşdirdiyi strateji xətt üzrə uğurla davam etdirilir. 2003-cü il fevral ayının 17-də ümummilli lider Heydər Əliyev tərəfindən imzalanmış “Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)” ölkəmizdə bu sahənin sürətli inkişafına güclü təkan verdi. Cənubi Qafqazda ilk dəfə olaraq qəbul edilmiş bu qlobal strategiya Azərbaycanın İKT sahəsinə xüsusi diqqətini cəmiyyətimizə və bütün dünyaya bəyan etdi. Bütün bunların məntiqi nəticəsidir ki, regionun ən dinamik inkişaf edən ölkəsi kimi Azərbaycan bu gün informasiya-kommunikasiya texnologiyaları sahəsinin genişləndirilməsi üçün böyük imkanlara malikdir.

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı kimi cənab İlham Əliyev prezidentlik fəaliyyəti dövründə daxili və xarici siyasətə yeni ab-hava, yeni çalarlar gətirdi. Bu siyasi kurs nəinki ölkəmizdə və region-da, eləcə də dünyada cərəyan edən geosiyasi və iqtisadi proseslər, bu sahədəki müsbət beynəlxalq təcrübə nəzərə alınmaqla müəyyənləşdirilib. Təsadüfi deyil ki, qloballaşan dünyada sosial-iqtisadi inkişafın lokomotivi sayılan informasiya-kommunikasiya texnologiyalarının Azərbaycanda tətbiqi bu siyasi kursda prioritet məsələ elan olunub. Azərbaycanın İKT sahəsində regionun aparıcı ölkəsinə çevrilməsi üçün məqsədyönlü dövlət siyasəti həyata keçirilir.

XXI əsr informasiya cəmiyyətinin yaradılması, zəngin təbii sərvətlərin insan kapitalına çevrilməsi və yüksək intellektual səviyyənin formalaşması baxımından keyfiyyətcə yeni eranın başlanğıcı sayılır. Qloballaşan, daim irəliyə – yeniliyə doğru can atan dünyamızı bu gün ən müasir informasiya və kommunikasiya texnologiyaları – internet, yüksək texnologiyalar və qlobal rabitə imkanları olmadan təsəvvür belə etmək mümkün deyil. Yeni minillikdə bəşər sivilizasiyasını düşündürən ən aktual və təxirəsalınmaz məsələ – telekommunikasiya və informasiya texnologiyaları sahəsində “inqilabi” dəyişikliklər yolu ilə əlçatmaz zirvələri fəth etmək, dövlətlər və xalqlararası zaman və məkan fərqlərini aradan qaldırmaqdır.

Müstəqil dövlət kimi gənc olmasına baxmayaraq, Azərbaycan qısa zaman kəsiyində bu mühüm sahədə də böyük nailiyyətlər əldə etmişdir. Siyasi sabitlik, dinamik sosial-iqtisadi inkişaf, cəmiyyətimizin tam demokratikləşməsi, beynəlxalq birliyə və Qərb iqtisadiyyatına geniş inteqrasiya, nəhəng enerji və nəqliyyat layihələrinin reallaşması, mütərəqqi təcrübənin mənimsənilməsi Azərbaycanın informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, rabitənin inkişafı sahəsində də qabaqcıl dövlətlər sırasına çıxmaq üçün uğurlu addımlar atmasına imkan yaratmışdır. Ötən beş il, xüsusən də 2008-ci il İKT ölkənin ən dinamik və stabil inkişaf edən sektoru kimi yadda qalmışdır. Belə ki, İKT sektorunda ötən il artım tempi təqribən 30, son 5 il üçün isə orta illik artım tempi 32-35 faiz olmuşdur. Bu göstərici üzrə ölkəmiz ümumdünya artım tempini təxminən 3 dəfə qabaqlamışdır. Beləliklə də, iqtisadiyyatın İKT sektoru son 5 ildə 4,5 dəfə genişlənmişdir. Sektor üzrə orta aylıq əməkhaqqı 3 dəfə artaraq 432 manat olmuş, 5500-dən çox yeni iş yerləri açılmışdır. İKT məhsullarının istehsalı üçün yeni müəssisələr yaradılmış və 2003-ci illə müqayisədə ölkəmizdə İT sənayesində istehsal 6-7 dəfə artmışdır. Yeni texnologiyaların tətbiqi və yeni xidmətlərin göstərilməsi nəticəsində rabitə və informasiya xidmətlərinin tərkibinin genişlənməsinə və keyfiyyətinin yüksəlməsinə nail olunmuşdur. Əsasən də regionlarda və ucqar yaşayış məntəqələrində xidmətin əhatə dairəsi genişləndirilmişdir. Ən ucqar yaşayış məntəqələrinin peyk texnologiyası vasitəsilə telefonlaşdırılması istiqamətində görülmüş məqsədyönlü işlər nəticəsində dünyanın əksər ölkələrində hələ də həllini tapmamış bir məsələ – ölkə ərazisinin tam telefonlaşdırılması (MDB ölkələri arasında ilk ölkə) başa çatmışdır. Bu gün ölkəmizin istənilən yaşayış məntəqəsində, hətta 2-3 evi olan kəndlərdə də vətəndaşların stasionar telefon xidmətinə çıxış imkanı vardır. Cənubi Qafqaz və Mərkəzi Asiyada konveyer üsulu ilə kompüter istehsal edən ilk kompüter zavodu – KÜR Mingəçevir şəhərində istifadəyə verilmişdir.

Sahə üzrə inkişaf göstəricilərinə əsasən 2003-2008-ci illər ərzində hər 100 nəfərə düşən əsas telefon aparatlarının sayı artaraq təxminən 15,5 ədəd, əhalinin hər 100 nəfərinə düşən mobil abunəçilərin sayı 5 dəfədən çox artaraq 68 nəfər, ATS-lərin elektronlaşma səviyyəsi təqribən 2 dəfəyə qədər artaraq ölkə üzrə 83,1 faiz, o cümlədən Bakı şəhəri üzrə 85,5 faiz, respublikanın digər əraziləri üçün isə 80,7 faiz təşkil etmişdir. Sabit telekommunikasiya şəbəkəsinin inkişafı “100 ailəyə – 100 telefon” layihəsi çərçivəsində həyata keçirilir. Layihə üzrə görülmüş işlər nəticəsində bu gün respublikamızda hər 100 ailəyə 65.8 telefon, o cümlədən Bakı şəhəri üzrə 123.7, digər ərazilərdə isə 45.9 telefon düşür.

Artıq iki ildir ki, poçt sektoruna dövlət əsaslı investisiya qoyur və bunun nəticəsidir ki, ildən-ilə burada da gəlirlər və əmək haqları artır. Son beş ildə orta aylıq əməkhaqqı 2 dəfə artmış, 2371 yeni iş yeri açılmış, 680, o cümlədən 2008-ci ildə poçt şöbələri üçün 74 yeni bina tikilmişdir. 2005-ci ildən Azərbaycan hökuməti Dünya

Bankı ilə birgə poçt sisteminin daha yüksək gəlirlərlə işləməsini təmin etmək üçün "Maliyyə xidmətlərinin inkişafı" layihəsini həyata keçirir. Bu məqsədlə poçt təşkilatları müasir elektron və nəqliyyat sistemləri ilə təchiz olunmuş və vahid şəbəkə infrastrukturu yaradılmışdır. Layihə 2009-cu ildə başa çatacaqdır və müvafiq lisenziya alındıqdan sonra ölkə üzrə 1200 poçt şöbəsində vətəndaşlara yeni xidmətlərin (maliyyə və bank) göstərilməsi mümkün olacaqdır.

Son illərdə Azərbaycan Respublikasında elektron kütləvi informasiya vasitələrinin sürətli inkişafı və onun genişmiqyaslı tətbiqi ölkəmizdə yeni informasiya sistemlərinin yaradılmasına və radio-televiziya yayım texnologiyalarının yeniləşdirilməsinə zəmin yaratmışdır. Hesabat dövründə görülmüş tədbirlər nəticəsində hazırda Azərbaycan televiziyası və dövlət radiosunun əhatə dairəsi əhalinin 99,9 faizinə, İctimai televiziya və eyniadlı radionun əhatə dairəsi təxminən 88 faizinə, özəl televiziya və radio yayımlarının əhatə dairəsi isə təxminən 75-80 faizə çatdırılmışdır. Bu sahədə ən vacib məsələlərdən biri də sərhəd ərazilərdə efirə Beynəlxalq Telekommunikasiya İttifaqının təyin etdiyi qaydalardan kənar müdaxilələrin mövcudluğudur. Bu problemin həlli üçün 2008-ci il 10 iyul tarixində Azərbaycan Respublikası Prezidenti sərəncam imzalamış və işlər 2009-cu ilin I rübündə başa çatdırılmışdır.

Son 5 ildə İKT sektorunda gedən proseslərə uyğun olaraq, internet xidmətləri də dinamik olaraq inkişaf etməkdədir. Artıq 2002-ci ildən internet xidmətləri üçün lisenziya tələb olunmur ki, bu da öz növbəsində sahədə kiçik və orta sahibkarlığın inkişafına geniş imkanlar açmışdır. Bunun nəticəsində qısa müddət ərzində bu sahənin göstəriciləri nəzərəçarpacaq dərəcədə yaxşılaşmışdır. Belə ki, son illərdə İnternetdən istifadə qiymətləri dəfələrlə aşağı düşmüş, internetə çıxış imkanları naqilsiz və mobil texnologiyaların tətbiqi ilə genişlənmiş, nəticədə 2008-ci ildə hər 100 nəfər əhaliyə düşən internet istifadəçilərinin sayı təqribən 37 olmuşdur. 2008-ci ildə qiymətlərdə 2 dəfə, 2009-cu ilin başlanğıcında isə 2,5 dəfə endirim olmuşdur. Ölkəmiz həmçinin, region ölkələrinə internet xidmətləri ixrac edir. 2002-ci ildə beynəlxalq trafik üzrə ölkəmizə gələn və ölkəmizdən oxunan kontentin nisbəti 1000:1 idisə, 2008-də bu təqribən 15:1 nisbətində olmuşdur. Respublikada fəaliyyət göstərən internet Servis Provayderlərinin sayı 3 dəfə artaraq 30-u keçmiş, Bakı şəhərində və regionlarda fəaliyyət göstərən internet klubların sayı 1000-i ötmüşdür. "AZ" domeni zonasında saytların sayı 3 dəfə artaraq 7000-dən çox olmuşdur. Son 2 il ərzində genişzolaqlı internet istifadəçilərinin sayı 12 dəfə artmışdır. Son beş ildə internet xidmətlərindən əldə olunan gəlirlər 6,5 dəfə artmış və gəlirlərin orta artım tempi 45 faizə yaxın olmuşdur. Demək olar ki, bütün rayon mərkəzlərində fiber-optik xətt vasitəsilə genişzolaqlı xidmətlər, o cümlədən sürətli internet xidməti üçün geniş imkanlar yaradılmışdır.

Respublika ərazisinin telefonlaşdırılması başa çatdırılmış və dialap üsulu ilə vahid 3 nömrəli giriş vasitəsilə coğrafi yerindən asılı olmayaraq informasiyaya çıxış imkanı yaradılmışdır. Həmçinin, ölkə ərazisində fəaliyyət göstərən bütün internet provayderlərə eyni şəraitin yaradılması məqsədilə şəhərlərarası telefon kanallarından müvəqqəti olaraq ödənişsiz istifadəyə şərait yaradılmışdır ki, bu da regionlarda internetin inkişafına öz müsbət təsirini göstərmişdir. Belə ki, son dörd ildə rayonlar üzrə internet istifadəçilərinin sayı təqribən 12-15 dəfə artmışdır. Lakin bu göstəricilər bir çox ölkələrlə müqayisədə qənaətbəxş hesab olunmur və onların yüksəldilməsi üçün yeni texnologiyaların tətbiqi və infrastrukturun genişləndirilməsi istiqamətində dinamik iş aparılır.

Dövlət başçısının "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında" 4 noyabr 2008-ci il tarixli sərəncamı ilə əlaqədar olaraq tanınmış alim və mütəxəssislərin iştirakı ilə müvafiq dövlət proqramı hazırlanmışdır. Dövlət proqramında əsas istiqamətlər kimi, kosmik sənayenin yaradılması və inkişafı, telekommunikasiya peyklərinin orbitə çıxarılması, kosmik informasiyanın qəbulu və emal edilməsi üçün yerüstü mərkəzin yaradılması, orbital mövqelərin əldə olunması üçün BTİ ilə işlərin davam etdirilməsi, kadrların hazırlanması və bu kimi önəmli məsələlər öz əksini tapmışdır. Azərbaycanın telekommunikasiya peykinin orbitə çıxarılması üçün əməkdaşlıq istiqamətində tanınmış şirkətlərdən bir neçəsi ilə anlaşma memorandumları imzalanmışdır ki, bunlara misal olaraq Türkiyənin Türksat", Malayziyanın "Measat" və ABŞ-ın "Orbital" şirkətlərini göstərmək olar. Aparılan işlərin nəticəsi olaraq planlı zolaqda ölkəmizi və qonşu ölkələri əhatə etmək şərtilə 96 E orbital mövqeyi 2008-ci ildə BTİ tərəfindən Azərbaycan Respublikasına ayrılmışdır. Bununla belə, telekommunikasiya peykinin Avropa və Asiya ölkələrini də əhatə etməsi üçün plandankənar zolaqda da orbital mövqeyin ayrılması ilə bağlı BTİ-yə müraciət edilmiş və bu istiqamətdə də mövcud prosedur qaydalara uyğun olaraq tədbirlər görülür.

Ölkəmizin İKT sahəsində beynəlxalq əlaqələrinin genişlənməsi nəticəsində son illərdə dünyanın müxtəlif dövlətləri ilə (Amerika, Avropa, Asiya, MDB ölkələri) 11 saziş, 15 memorandum, 13 protokol, 7 digər sənəd (razılıq, qrant, proqram müqaviləsi, barışıq sənədi, əməkdaşlıq planı, konvensiya, niyyət məktubu) imzalanmışdır. Həmçinin, ABŞ-Azərbaycan, Sloveniya-Azərbaycan, Azərbaycan-İsrail və Latviya-Azərbaycan İKT biznes forumları təşkil olunmuş, müxtəlif beynəlxalq forum, konfrans və seminarlar keçirilmişdir. Bu

tədbirlərdə dünyanın müxtəlif ölkələrindən çoxsaylı iştirakçılar, o cümlədən müvafiq sahələr üzrə nazirlər, beynəlxalq təşkilatların və tanınmış şirkətlərin rəhbərləri, Nobel mükafatı laureatları bir araya gələrək ölkəmizin İKT sektorunda baş verən müsbət dəyişikliklərlə əyani olaraq tanış olmuş, bu sahənin respublikamızda perspektivləri barədə Prezident İlham Əliyevin fikirlərini bilavasitə onunla görüşlərdə öyrənmişlər.

Son beş ildə respublikamızda bir çox tanınmış telekommunikasiya və informasiya texnologiyaları şirkətlərinin nümayəndəlikləri açılmış, milli şirkətlərimiz region bazarlarında özlərini tanıtdıra bilmişlər. Azərbaycan markalı kompüter və noutbuklar artıq region ölkələrinə ixrac olunur. 2008-ci ildə CNews Analytics beynəlxalq təşkilatının hazırladığı reytinq cədvəlində adları çəkilən dünyanın 20 ən inkişaf etmiş İKT şirkətlərinin 10-u Azərbaycanda fəaliyyət göstərir. 2008-ci ildə Davosda keçirilən Ümumdünya İqtisadi Forumu öz texnoloji hesabatında Azərbaycanı İKT-nin inkişaf səviyyəsinə görə MDB ölkələri arasında birinci yerə çıxarmışdır. Həmçinin, beynəlxalq qurumların apardıqları təhlillərə görə, Azərbaycan 2008-ci ildə E-hökumət üzrə hazırlıq səviyyəsinə görə 182 ölkə arasında 89-cu yeri, İKT sənayesinin rəqabətlilik indeksinə görə inkişaf etmiş 66 ölkə arasında 63-cü yeri və ölkənin elektron hazırlıq səviyyəsinə görə isə dünyanın inkişaf etmiş 70 ölkəsi arasında yer tutmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin himayəsi və iştirakı ilə keçirilən “Bakutel” beynəlxalq şərqi – konfransı bu illər ərzində regionun İKT üzrə ən nüfuzlu tədbirinə çevrilmişdir. “Bakutel” beynəlxalq sərgi və konfransı cari ilin 11-14 noyabr tarixlərində artıq 14-cü dəfə keçirildi və sevindirici haldır ki, sərgidə iştirak edən şirkətlərin sayı ildən-ilə artır. Bu il sərgidə 30 ölkədən 130 şirkət, o cümlədən 60-a yaxın yerli şirkətlər iştirak etmiş, sərgini ziyarət edənlərin sayı isə 10 mindən çox olmuşdur. Sərgidə 1000-ə yaxın xarici mütəxəssis iştirak etmişdir. Sərgi çərçivəsində nazirlərin regional toplantısı, elmi-praktik konfrans, beynəlxalq təşkilatların üç seminarı, dörd ölkələrarası İKT biznes forumu keçirilmişdir. Dünya şöhrətli azərbaycanlı ABŞ alimi Lütfi Zadənin iştirakı ilə AMEA-da elmi seminar da keçirilmişdir. 20 ölkədən hökumət rəsmiləri, nazirlər, parlament rəhbərləri, nazir müavinləri, BMT-nin Baş katibinin xüsusi nümayəndəsi və digər rəsmilər iştirak etmişlər.

İKT sektorunun gələcəyi üçün insan resurslarının inkişafı da zəruri şərtdir. Hazırda İKT üzrə ixtisaslı kadr hazırlığı məqsədilə dünyanın bir neçə tanınmış informasiya texnologiyaları universitetləri ilə əlaqələr qurulmuşdur. ABŞ-ın Core Meyson, San-Xose və Los-Anceles, Kalifomiya, İsveçin Çalmers Texnologiya və informasiya Texnologiyaları universitetləri ilə anlaşma memorandumları imzalanmışdır. Artıq bu müqavilələr əsasında 25 nəfər azərbaycanlı gənc dünyanın müxtəlif tanınmış universitetlərində müasir informasiya-kommunikasiya texnologiyaları ixtisaslan üzrə təhsil alırlar. 30-dan çox gənc isə ixtisasları üzrə xarici ölkələrdə qısamüddətli hazırlıq kursları keçmişlər. Gürcüstanda yaşayan və bu ölkənin ali təhsil müəssisələrində təhsil alan 50-yə yaxın gəncə nazirlik tərəfindən təqaüd verilir. Bu prosesə daha da təkan vermək üçün respublikada fəaliyyət göstərən yerli və xarici informasiya texnologiyaları şirkətlərinin həmtəsisçiliyi ilə İKT-nin İnkişafı Naminə İnsan Resursları Fondu yaradılmışdır. Ancaq bu sahədə ən əhəmiyyətli addım Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2007-ci il 16 aprel tarixli sərəncamı ilə təsdiq edilmiş “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”dır.

Bu gün İKT həyatımızın bütün sahələrinə geniş daxil olub. Belə ki, “Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)”na uyğun olaraq, dövlət orqanlarının vətəndaşlara və təşkilatlara təqdim etdiyi xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması və onların təqdim olunma müddətlərinin azaldılması, dövlət orqanlarının işinin səmərəliliyinin artırılması məqsədilə müxtəlif məzmunlu layihələr həyata keçirilir.

Elektron idarəetmə şəbəkəsinin yaradılması istiqamətində BMTİP və RİTN-in birgə həyata keçirdiyi “E-idarəçilik təşəbbüsü” layihəsi çərçivəsində respublikanın bütün bölgələrini əhatə edəcək “AzDataCom” şəbəkəsi qurulur. Bu şəbəkə 10 Gb/san. sürətlə ölkədaxili məlumat ötürülməsinə imkan verir. Bu imkanlardan elektron hökumət, distant təhsil, elektron kommersiya, biznesin məsafədən idarə olunması və s, kimi məsələlərdə istifadə edilir. Artıq layihənin əsas hissəsi icra olunmuşdur və Bakı, Sumqayıt şəhərlərində və Abşeron yarımadasında şəbəkə fəaliyyətdədir. 2009-cu il ərzində şəbəkə bütün ölkə ərazisində tam həcmdə fəaliyyətə başlayacaqdır. Qazaxıstan və ya Türkmənistan ilə Xəzəraltı optik kabel əlaqəsinin yaradılması Trans-Asiya Avropa (TAE) magistralını ən qısa yolla qapamağa və ölkəmizin tranzit məkana çevrilməsinə xidmət edə bilər. Əhalinin İKT-nin imkanlarından istifadəsi məqsədilə “Microsoft” və “Intel” şirkətləri ilə birgə həyata keçirilməsi planlaşdırılan “Xalq kompüteri” layihəsi əhalinin güzəştli kreditlə kompüter əldə etməsinə imkan verəcəkdir.

Yuxarıda qeyd olunan uğurlara 2005-ci ildə qəbul olunmuş və icrası 2008-ci ildə başa çatmış “Elektron Azərbaycan” Dövlət Proqramı çərçivəsində nail olunmuşdur ki, bununla da sahə üzrə əsas göstəricilər orta ümumdünya göstəricilərinə bərabər olmuş, bəzi istiqamətlərdə isə onu ötmüşdür. Dövlət proqramının yerinə

yetirilməsi nəticəsində İKT sektorunun (telekommunikasiya, infokommunikasiya, poçt və teleradio) infrastrukturu müasir texnologiya və avadanlıqların tətbiqi ilə modernləşdirilmiş, davamlı və dayanıqlı inkişaf üçün etibarlı baza hazırlanmışdır. Artıq İKT sektorunun inkişafının növbəti mərhələsi üzrə II Dövlət Proqramı hazırlanaraq baxılmaq üçün Nazirlər Kabinetinə təqdim olunmuşdur ki, burada da əsas məqsəd sahə üzrə əsas göstəricilərin inkişaf etmiş ölkələrin səviyyəsinə çatdırılması və bununla da, ölkəmizdə informasiya cəmiyyətinin formalaşmasının əsas fazasına keçidi təmin etməkdir.

"100 ailəyə – 100 telefon" layihəsini 2012-ci ilə həyata keçirmək nəzərdə tutulur ki, bununla da yeni texnologiyalar əsasında coğrafi mövqeyindən asılı olmayaraq bütün yaşayış məntəqələrində dövlət, biznes qurumlarının, vətəndaşların, o cümlədən hər bir ailənin genişzolaqlı universal rabitə xidmətlərinə – telefon, internet, elektron dövlət xidmətləri və radio-televiziya yayımına keyfiyyətli çıxışı təmin ediləcəkdir. Bu layihənin uğurlu inkişafı həm də ölkəmizdə internet iqtisadiyyatının formalaşmasına, internetin qiymət və sürət keyfiyyətinə görə ümumdünya orta göstəricilərini ötmək, internetin hərtərəfli və kütləvi yayılmasını təmin etmək üçün əlverişli şərait yaradacaqdır. Müasir informasiya texnologiyalarının tətbiqi ilə poçt sistemində aparılan islahatları davam etdirərək qeyri-ənənəvi və elektron poçt xidmətlərinin tətbiqi ilə 2012-ci ilə inkişaf etmiş ölkələrdə olduğu kimi ölkəmizdə poçt sisteminin müasir bazar iqtisadiyyatının tələblərinə uyğun rentabelli fəaliyyətini təmin etmək də əsas məqsədlərimizdən biridir. Radio və televiziya yayımı üzrə dünyada gedən proseslər çərçivəsində 2013-cü ilə Beynəlxalq Telekommunikasiya ittifaqının tələblərinə uyğun olaraq bütün ölkə ərazisini əhatə edəcək rəqəmli televiziya sisteminin qurulması təmin olunacaqdır. Elektron Hökumət layihəsi çərçivəsində əhaliyə, özəl sektora və xüsusən də kiçik və orta müəssisələrə dövlət xidmətlərinin tez və keyfiyyətli verilməsini təmin etmək məqsədilə ölkədə mövcud olan və yaradılması planlaşdırılan sahəvi "Bir pəncərə" prinsipləri əsasında "Vahid elektron dövlət xidmətləri qapısı" layihəsi başa çatdırılacaqdır.

Həmçinin, regional və beynəlxalq əhəmiyyəti ilə xüsusi önəm verdiyimiz üç layihənin həyata keçirilməsi planlaşdırılmışdır. Şərq-Qərb Super informasiya magistralı layihəsi dünyanın iki güclü informasiya şəbəkəsini – Qərbi Avropa və Sakit okean hövzəsinin inkişaf etmiş ölkələrini birləşdirən və Şərqi Avropa ölkələri, MDB, Türkiyə, İran, Mərkəzi Asiya ölkələrini, o cümlədən Əfqanıstan və Pakistanı əhatə etməklə, Çin və Hindistana çıxmaqla bu böyük regionda dünyanın yeni bir transmilli nəhəng informasiya şəbəkəsinin yaradılmasına imkan verəcəkdir. Layihənin reallaşması geniş regionun təxminən 20 ölkəsində internetin, elektron informasiya resurslarının və informasiya iqtisadiyyatının inkişafına və bu ölkələrin bütövlükdə sosial-iqtisadi inkişafına yeni bir təkan verəcəkdir. 2008-ci il noyabr ayının 11-də "BAKUTEL-2008″ beynəlxalq sərgi və konfransı çərçivəsində bu layihə regionun nazirlər toplantısında müzakirə olunmuş və "Transmilli Avrasiya Super informasiya Magistralına dair Bakı Bəyannaməsi" qəbul olunaraq BMT-nin Baş Assambleyasının 2009-cu ilin sentyabr ayında keçiriləcək iclasının gündəliyinə salınmaq üçün təqdim olunması təklif olunmuşdur. Azərbaycanın 2 telekommunikasiya süni peyki orbitə çıxarılmışdır. Bu peyklər dünyanın böyük bir hissəsini Şərqi Avropa, Şimali Afrika, MDB, Orta, Mərkəzi və Şərqi Asiyanın bir hissəsini əhatə edəcəkdir. Layihə bu ölkələrdə televiziya, radio, internet, beynəlxalq telefon trafiki, informasiya mübadiləsi və bir sıra telemexanika xidmətlərinin verilməsini və ölkəmizin beynəlxalq kosmik bazara çıxışını təmin edəcəkdir. Regional İnnovasiya Zonasının yaradılmasında əsas məqsəd "Əsrin müqaviləsi" nümunəsində neftin gətirdiyi uğur estafetini davam etdirərək, yüksək texnologiyalar üzrə xüsusi iqtisadi zona ideyasını reallaşdırmaqla, Azərbaycanı informasiya texnologiyalarının məhsul və xidmətlərinin istehsalı və ixracatı üzrə regional mərkəzə çevirməkdir.

Müstəqil Azərbaycan dövləti bu gün öz inkişafının məzmun və keyfiyyətcə daha yüksək mərhələsinə qədəm qoymuşdur. Qarşıdakı illərdə Azərbaycanın dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilməsi, siyasi və iqtisadi cəhətdən daha da qüdrətli olması üçün möhkəm baza, güclü iqtisadi, texnoloji potensial və kifayət qədər maliyyə imkanları mövcuddur. Təbii ki, Azərbaycanın hərtərəfli, dinamik və davamlı inkişafında rabitə və informasiya texnologiyaları sektorunun rolu mühümdür və bu rol durmadan artmaqdadır.

Bu gün İKT sektorunda çalışanlar bu fikirdə yekdildirlər ki, informasiya texnologiyaları sahəsində ümummilli lider Heydər Əliyevin ideyaları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi siyasət və həyata keçirdiyi kompleks tədbirlər nəticəsində tam həllini tapacaq və Azərbaycan tezliklə inkişaf etmiş ölkələr sırasında öz layiqli yerini tutacaqdır. Bizim borcumuz isə Heydər Əliyevin şah əsəri olan müasir Azərbaycanı göz bəbəyi kimi qorumaq, yaşatmaq və inkişaf etdirməkdən, onun ideyalarını həyata keçirməkdə ölkə Prezidenti İlham Əliyevə layiqli işimizlə dəstək verməkdən ibarətdir.

**"Azərbaycan".**- 2009.- 8 may.- № 99.- S. 5.

# HEYDƏR ƏLİYEV TARİXİN XALQIMIZA ƏN BÖYÜK TÖHFƏSİ İDİ

**Etibar Pirverdiyev,**
"Azərenerji" ASC-nin prezidenti

Cəmiyyət həyatı önəmli insanlarla, böyük tarixi şəxsiyyətlərlə zaman-zaman zənginləşir. Təbii ki, şəxsiyyətlərin tarix və cəmiyyəti zənginləşdirməsi bu və ya digər xalqın həyatında say və kəmiyyət etibarı ilə həmişə fərqli olubdur.

Hər dəfə xalqımızın tarixində silinməz və danılmaz yeri olan böyük simaların, müdrik insanların sırasına nəzər salanda Ulu Öndərimiz Heydər Əlirza oğlu Əliyevin yeri ön cərgədə görünür. Bu bəlkə xalqın və onun tarixinin ən böyük qazanclarından biridir. Heydər Əliyev böyüklüyü ondan irəli gəlir ki, o, xidmətləriylə bu xalq üçün, bu dövlət üçün etdikləriylə xalqı tərəfindən bütün zamanlar üçün birinci olmaq haqqını qazanıbdır.

Vətəndaşların sosial rifah halının yüksəldilməsini özünün mühüm fəaliyyət istiqamətlərindən biri sayan H. Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə əldə olunan ən mühüm nailiyyətlərdən biri də respublikanın enerji təhlükəsizliyi məsələsinin həll edilməsi oldu. Azərbaycan Sovet İttifaqının tərkibində olduğu dövrdə dövlətçiliyimizin sosial-iqtisadi, ideya-siyasi əsaslarını qurub yaratmağa başlamış, doğma xalqına ləyaqət və sədaqətlə xidmət etmiş Ümummilli Liderimiz Heydər Əliyev respublikamızın enerji təhlükəsizliyinin təmin olunması, o cümlədən müstəqil elektrik energetikası sisteminin formalaşması üçün zəruri tədbirlər görmüşdür.

Ümumiyyətlə, Azərbaycanın bir əsrdən artıq tarixə malik milli elektrik energetikası sisteminin inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin respublika rəhbəri olduğu illərə təsadüf edir. Məhz həmin illərdə Ulu Öndərin təşəbbüsü və birbaşa rəhbərliyi altında Qafqazda ən iri istilik elektrik stansiyası olan "Azərbaycan" İstilik Elektrik Stansiyası (İES) inşa olunmuşdur. 2400 Mvt gücündə olan bu elektrik stansiyası hal-hazırda milli energetika sisteminin ümumi generasiya gücünün 40 faizindən çoxunu təşkil edir. Eyni zamanda, istehsal edilən elektrik enerjisinin 50 faizə yaxını da məhz onun payına düşür.

Ulu Öndərin rəhbərliyi altında 1970-ci ildə ümumi gücü 22 Mvt olan Araz SES, 1976-cı ildə ümumi gücü 50 Mvt olan Tərtər SES (bu su elektrik stansiyası erməni silahlı birləşmələrinin işğalı altındadır), 1982-ci ildə isə ümumi gücü 380 Mvt olan Şəmkir SES inşa edilmişdir.

Ulu Öndərimiz sonralar bu şərəfli tarixi xatırlayarkən demişdir: "Mən xoşbəxtəm ki, bu işlərin həyata keçirilməsinin böyük bir hissəsində bilavasitə iştirak etmişəm və o illərdə – 1970-80-ci illərdə Azərbaycanın rəhbəri olduğum zaman ölkəmizdə müstəqil elektrik enerjisi potensialının yaradılmasına nail olmuşam".

Həmin dövrdə elektrik stansiyalarının inşası ilə yanaşı elektrik şəbəkələri də sistematik inkişaf etdirilmiş və respublikamızın dayanıqlı enerji sistemi yaradılmışdır. O illərdə 330 kv-luq "Əli Bayramlı" İES – "Ağdam" – "Gəncə" – "Ağstafa", Əli Bayramlı – Yaşma-Dərbənd, 5-ci Mingəçevir, 500 kV-luq 1-ci və 2-ci Abşeron, Muxranis – Vəli və s. kimi elektrik verilişi xətləri, 330/110/20 kv-luq "Yaşma", "Gəncə", "Ağstafa", 330/110/10 kv-luq İmişli, 500/330/220 kv-luq Abşeron, 220/110/10 kv-luq "Hövsan", "Nizami", "Müşfiq", "Səngəçal", "Masallı", "Ağsu", "Babək" və s. kimi qovşaq yarımstansiyaları istismara verilmişdir.

Respublikamıza ikinci rəhbərliyi dövründə də Ulu Öndər Heydər Əliyev həmişə olduğu kimi yenə də bir sıra strateji sahələrlə yanaşı elektrik energetikası sisteminə də öz qayğı və diqqətini əsirgəməmişdir. Məhz onun elektrik energetikası sisteminə olan diqqətinin nəticəsi kimi 1995-ci ilin dekabr ayında İngiltərəyə səfəri zamanı Yenikənd SES-in tikintisi üçün Avropa Yenidənqurma və İnkişaf Bankından 53 milyon ABŞ dolları həcmində kreditin ayrılmasına nail oldu və hər biri 37,5 MVt, ümumi gücü 150 MVt olan Yenikənd SES inşa edildi.

Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində işğal altında qalan "Ağdam" yarımstansiyası və 330 kv-luq Azərbaycan İES-Ağdam-İmişli EVX əvəzinə 330 kv-luq Ağcabədi, 110 kv-luq Bərdə yarımstansiyalarının və 330 kv-luq Azərbaycan İES-Ağcabədi-İmişli EVX-nin inşası zərurəti yaranmışdı.

Avropa Yenidənqurma və İnkişaf Bankı və İslam İnkişaf Bankından ayrılmış kredit hesabına Mingəçevir SES-in yenidənqurulması, 330 kv-luq Ağcabadi, 110 kv-luq Bərdə yarımstansiyalarının və 330 kv-luq Azərbaycan İES-Ağcabədi-İmişli EVX-nin inşası həyata keçirildi.

Ulu Öndərin şah əsəri olan "Əsrin müqaviləsi", Xəzərin zəngin neft və qaz ehtiyatlarından istifadə edilməsi üzrə digər müqavilələrdə nəzərdə tutulan tədbirlərin icrası, həmçinin əsas istehsal obyektlərinin Abşeron yarımadasında yerləşməsi burada yeni generasiya güclərinin işə salınması zərurətini yaratdı.

Bu məqsədlə də Almaniyanın "Bayerişe Landesbank Girosentrale" bankının krediti hesabına Bakı İEM-də hər birinin gücü 53,5 Mvt olan iki qaz-turbin qurğusu və Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Bankının krediti hesabına isə "Şimal" ES-də 400 Mvt-lıq buxar qaz qurğusu istismara verildi.

Yeni generasiya güclərinin işə salınması ilə yanaşı sistemtəşkiledici elektrik şəbəkəsinin yenidənqurulması məqsədilə Almaniyanın KFW bankından kreditin ayrılmasına nail olundu.

Ümumiyyətlə, Ulu Öndərin rəhbərliyi dövründə 3500 Mvt-a yaxın generasiya gücü işə salınmışdır.

Ulu Öndərimizin birmənalı şəkildə qarşıya qoyduğu vəzifələr Azərbaycanın düzgün yolda olduğunu, inkişaf və tərəqqi istiqamətini tutduğunu hər kəsə göstərdi. Bütün zamanların hakimi və yaddaşı xalqdır. Məhz bu mənada Azərbaycan xalqı doğum gününü qeyd etməyə hazırlaşdığı Ulu Öndərinin əbədiyaşar bir tarixi şəxsiyyət olduğu barədə hökmünü artıq çoxdan veribdir. Ümummilli Liderin doğum günü ərəfəsində görülən tədbirlər, xalqın əhval ruhiyyəsi bu dediklərimizi bir daha sübut edir. Danılmaz bir həqiqət də var ki, Heydər Əlirza oğlu Əliyev öz əbədiyaşarlığını xalqımızın ürəyində özü yaşadır. Bu haqq ona Tanrıdan və Azərbaycan xalqından verilibdir.

**"Ədalət"**.-2009.-8 may.-N.79.-S.4.

# DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİNİN BANİSİ

**Murtuz ƏLƏSGƏROV,**
Milli Məclisin deputatı,
YAP sədrinin müavini

**Hər bir xalqın əsrlər boyu zənginləşən dövlətçilik ənənələrinin vahid sistem halına gəlməsi uzunmüddətli təkamül prosesinin nəticəsidir. Yeni yaranmış ictimai-siyasi formasiyalarda isə məhz tarixi məsuliyyəti üzərinə götürən xarizmatik liderlər xalqın daim arzusunda olduğu azadlıq, müstəqillik və milli dövlətçilik kimi müqəddəs ideallarin gerçəkləşməsində həlledici rol oynayır, bununla da özlərinə əbədiyaşarlıq hüququ qazanırlar. Tanrı belə şəxsiyyətlərə həm də xilaskarlıq missiyası verir – zamanın ən sərt sınaqlarından çıxmış bu insanlar müəyyən mərhələdə məsuliyyəti öz üzərilərinə götürərək, bütün bir millətin tarixən yaşatdığı azadlıq, müstəqillik ideyalarını gerçək həyatda reallaşdırmağa nail olurlar. Belə şəxsiyyətlərdən biri də ümummilli liderimiz Heydər Əliyevdir. Məhz buna görə də Heydər Əliyev irsinin öyrənilməsi bütün zamanlar üçün əhəmiyyətlidir.**

Dünyamıza nəzər salsaq görərik ki, inkişaf edən ölkələrin hər biri hansısa prinsiplərə söykənərək bugünkü səviyyəyə gəlib çatıb. Məsələn, Hindistan Mhatma Qandinin müəyyən etdiyi prinsiplərə söykənərək inkişaf edir. ABŞ bu ölkənin bani atalarının, İstiqlaliyyət Bəyannaməsini ortaya qoyanların müəyyən etdiyi xətti əsas götürür. ABŞ İstiqlaliyyət Bəyannaməsi Amerika dövlətinin və xalqının söykəndiyi prinsipləri özündə əks etdirir, eyni zamanda bu ölkə yaranarkən ortada olan ənənələr, irəli sürülən prinsiplər hələ də ana prinsiplər olaraq qalmaqdadır. Baxmayaraq ki, Böyük Britaniya konstitusiyalı monarxiyadır, bu ölkə də tarixdən gələn ideoloji prinsiplərə söykənir. Qardaş Türkiyə Respublikası Ata-türkçülük prinsiplərinə söykənir. Türkiyədə nə qədər siyasi partiyalararası dartışma, hakimiyyət dəyişikliyi və s. baş versə də, Atatürkün müəyyən etdiyi prinsiplər daim yaşayır.

Azərbaycanın milli ideologiyasının və dövlətçiliyinin təməl prinsiplərinin müəyyən edilməsi məsələsi ölkəmiz 1991-ci il oktyabr ayının 18-də özünün dövlət müstəqilliyini bərpa etdikdən sonra çox ciddi diskussiya mövzusu olmuşdur. Müstəqilliyinə yenicə qovuşmuş dövlətimizin və xalqımızın gələcək inkişafı ilə əlaqədar müxtəlif ideoloji təkliflər səsləndirilirdi. Düzdür, ölkəmiz dövlət müstəqilliyinə qovuşarkən XX əsrin əvvəllərində mövcud olmuş Xalq Cümhuriyyətinin müəyyən ənənələri var idi. Amma Xalq Cümhuriyyətinin az müddətdə mövcud olması və müəyyən prinsipləri ortaya qoya bilməməsi XX əsrin 90-cı illərinin əvvəllərində milli ideya axtarışı baxımından Azərbaycanda bir boşluğun olduğunu büruzə verdi. Türkçülüyə istinad etmək, dinə söykənmək və digər prinsipləri qəbul etmək təklifi ilə çıxış edənlər var idi. Amma bu təkliflərin hər biri yarımçıq idi, nə isə çatışmırdı. Hansısa elementin çatışmaması və yarımçıq tezis inkişafa, ideoloji xəttə əngəl olurdu. Bu prinsipləri tamamlamaq, inkişaf etdirmək, möhkəmləndirmək və qətiləşdirmək lazım idi. Məhz ümummilli lider Heydər Əliyev bunu qətiləşdirdi. O, nəinki Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyini təmin etdi, eyni zamanda millətimizin və dövlətimizin ideoloji xəttini, söykənəcəyi təməl prinsiplərini irs olaraq müəyyənləşdirdi.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər, bu illər ərzində göstərdiyi səmərəli fəaliyyət o qədər zəngin və keşməkeşlidir ki, o, bu gün təkcə Heydərsevərləri deyil, həm də dövlət adamlarını, tədqiqatçıları da daim düşündürür və maraqlandırır. Bu böyük şəxsiyyətin dövləti idarəetmə təcrübəsinə həsr edilən çoxlu tədqiqatlar aparılmasına, yüzlərlə kitabın yazılmasına baxmayaraq, onun zəngin təcrübəsi və səmərəli fəaliyyətinin təhlilinə ehtiyac duyulan hələ açılmamış səhifələri var və bunlar öz tədqiqatçılarını gözləyir. Məlumdur ki, tarixi şəxsiyyət adım qazanmaq hər dövlət başçısına nəsib olan xoşbəxtlik deyil. Bunu qazanmaq üçün ümummilli lider adını sağlığında qazanmış Heydər Əliyev kimi gərək xalqın qarşısında böyük xidmətlərin, xalqın qəlbində məhəbbətin, bir sözlə, tarixdə izin olsun.

Müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi tərəqqinin, siyasi sabitliyin, ictimai şüurun son 35 ildən artıq bir dövrü əhatə edən mərhələsində özünü dünya siyasətinin görkəmli xadimlərindən biri kimi tanıdan Heydər Əliyevin adı tariximizə əbədi olaraq həkk olunmuşdur. Bu böyük şəxsiyyət bütün varlığı ilə sevdiyi Azərbaycanı, xalqımızı, onun dövlətçilik tarixini çox çətin sınaq və imtahanlardan çıxarmış və zənginləşdirmişdir.

Keçən əsrin 70-ci illərinə nəzər salsaq görərik ki, həmin illərdə məhz Heydər Əliyev fiziki və mənəvi terrora məruz qalan Azərbaycan milli təfəkkürünü qoruyub saxlaya bildi. Belə ki, Heydər Əliyevin sovetlərin siyasi iyerarxiyasında rəhbərliyə gəlməsi ilə milli özünüdərk hissi gücləndi və bütün ideoloji maneələri dəf edərək müstəqil düşüncəyə yol açdı. Bu, əslində xalqın milli dövlət yaratmaq arzusunun yeni işartıları idi. Ulu öndər Azərbaycana birinci rəhbərliyi dövründə böyük təzyiqlərlə, təqiblərlə, ciddi nəzarətlə üzləşsə də, riskdən

çəkinməyərək əzmkar fəaliyyəti ilə xalqda tarixi keçmişi, milli kimliyi, dili, mədəniyyəti, milli adət-ənənələri və düşüncə sistemi barədə dolğun təsəvvürlər formalaşdıra bildi. Heydər Əliyevin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəricisi də məhz milli ruhun hədsiz yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsinin real siyasi amilə çevrilməsi oldu.

Hələ Sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə Heydər Əliyev dövlət müstəqilliyinə zəmin yaradan siyasi, iqtisadi və hüquqi sahədə mühüm addımlar atdı. Həmin illərdə Azərbaycanda aparılan misli görünməmiş quruculuq işləri bu gün dövlət müstəqilliyimizə təminat verən mühüm amillər oldu. Tarixi faktlar təsdiqləyir ki, əslində SSRİ-nin dağılması prosesi 1970-ci illərin əvvəllərindən başlamışdır. Məhz belə bir gərgin siyasi dövrdə Heydər Əliyevin birinci hakimiyyət dövrü başlandı. Təbii ki, SSRİ-də hansı proseslərin getdiyi və cəmiyyətə məlum olmayan, gizli saxlanılan problemlərin mahiyyətinin nədən ibarət olduğu Heydər Əliyevə bəlli idi. Bütün bunları Heydər Əliyev yaxşı görür, siyasi imkanlarından, nüfuzundan gələcək müstəqil Azərbaycan dövlətçiliyinin qurulmasına zəmin yaradan faktorların təmin edilməsi naminə istifadə etməyə çalışırdı.

Ötən əsrin 70-ci illərində məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanın gələcəkdə müstəqil dövlət olaraq mövcudluğunun təmin edilməsinə yönələn bir sıra kardinal addımlar atıldı. Məhz Heydər Əliyevin gərgin əməyi sayəsində Azərbaycan qısa müddətdə aqrar ölkədən iri sənaye respublikasına çevrildi. Azərbaycanın neft emalı və neft-maşınqayırma, elektronika sənayesinin yüksək keyfiyyətli məhsulları, şərab məmulatları nəinki Sovet İttifaqı məkanında, eyni zamanda, xarici ölkələrdə də geniş şöhrət qazanmışdı. İttifaq hökumətinin xüsusi qərarları ilə Azərbaycanda üzümçülük, pambıqçılıq və onların emal sənayesinin inkişafına yeni təkan verildi. Heydər Əliyevin birinci hakimiyyəti illərində həmin sahələrin inkişafı ilə kəndlərdəki soydaşlarımızın yaşayış səviyyəsi qibtə olunacaq şəkildə yüksəldi. Palçıq evlər, daxmalar müasir kommunikasiyalı mənzillərlə əvəz edildi.

Dövlət idarəçiliyi sahəsində Heydər Əliyev irsinin çox əhəmiyyətli cəhətlərindən biri də budur ki, o öz siyasətini heç bir zaman birtərəfli qurmurdu. Onun gördüyü işlər kompleks tədbirlər sistemindən ibarət idi. Ümummilli liderin 70-ci illərdə Azərbaycanda milli hərbi kadr hazırlığı işinə xüsusi diqqət yetirməsi də bunu bir daha təsdiq edir. O dövrdə Azərbaycanın ərazisində azərbaycanlılar hərbi kadr hazırlığına və o zamankı hərbi elitaya yaxın buraxılmırdılar. Azərbaycanda bir neçə ali hərbi məktəb olmasına baxmayaraq, bu məktəblərin minlərlə kursantı arasında yalnız beş-altı nəfər azərbaycanlı var idi ki, onların da çoxu "beynəlmiləl" ailələrin üzvləri idilər. Şübhəsiz, bu tendensiya Heydər Əliyevi narahat etməyə bilməzdi. Heydər Əliyevin şəxsi müdaxiləsi və qayğısı ilə 70-ci illərdən başlayaraq Bakıdakı ali hərbi məktəblərə qəbul olunan gənclərin sırasında azərbaycanlıların sayı intensiv şəkildə artmağa başladı və bu sahədə də milliləşdirmə prosesinə start verildi. Həmin dövrdə Heydər Əliyev milli hərbi kadr hazırlığı sahəsində daha bir kardinal addım atdı. Cəmşid Naxçıvanski adına hərbi lisey yaradıldı ki, bu da azərbaycanlılar arasında hərbi sahəyə marağın kütləvi xarakter almasına səbəb oldu.

1970-ci illərə kimi Cənubi Qafqaz respublikaları arasında azərbaycanlılara SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almalarına süni maneələr yaradılır, hətta müəyyən limit qoyulurdu. Lakin 1970-ci illərdən başlayaraq, Heydər Əliyevin təşəbbüsü ilə bu sahədə də ciddi dönüş yaradıldı. Həmin dövrdən başlayaraq, hər il yüzlərlə azərbaycanlı ittifaqın ən nüfuzlu ali məktəblərinin iqtisadiyyat, hüquq, diplomatiya, dövlət idarəçiliyi, beynəlxalq münasibətlər və texniki elmlər kimi mühüm elm sahələrinə təhsil almağa göndərilirdi. Bu siyasət Heydər Əliyev tərəfindən Azərbaycan dövlətçiliyinin intellektual bazasının yaradılmasına yönələn cəsarətli addımlar idi. Bu günün prizmasından yanaşdıqda, bu addımların sonralar müstəqil dövlət quruculuğundakı əvəzsiz rolu daha aydın, daha qabarıq görünür.

Bu böyük şəxsiyyət 1993-cü ildə xalqın tələbi ilə yenidən Azərbaycanın idarəçilik sükanı arxasına keçdikdən sonra qısa müddətdə milli dövlətçilik doktrinasını irəli sürmüş və onun icra-sına başlamışdır.

Çağdaş milli dövlətçilik tariximizdə Heydər Əliyev irsinin özünəməxsus cəhətləri, taktiki və strateji hədəfləri, konkret məqsədləri var. Bu irs 1991-1993-cü illərdə cəmiyyətin gözündən düşmüş dövlət-hakimiyyət vəhdətinin həqiqi simasını özünə qaytardı.

1993-cü ildə Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə Azərbaycan cəmiyyətində dövlətçilik ideyalarının bərqərar olması fundamental mahiyyət kəsb etməyə başladı. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrində ulu öndər Azərbaycan dövlətçiliyini faciələrdən və iflasdan xilas etdi. Siyasi sabitliyi təmin etməklə yanaşı, eyni zamanda demokratik, qüdrətli dövlət modeli konsepsiyasını da həyata keçirməyə başladı. 1993-1995-ci illərdə Heydər Əliyevin Azərbaycan dövlətçiliyi uğrunda apardığı fəal mübarizəni xatırlayarkən riqqətə gəlməyə bilmirsən. Bu müddətdə siyasi sabitliyin tam təmin olunması dövlətin gələcək iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirməyə imkan yaratdı. Sosial-iqtisadi, hüquqi-siyasi sahələrdə kardinal islahatlar proqramının həyata keçirilməsinə start verildi.

Ulu öndərin Azərbaycan dövlətçiliyi qarşısında tarixi xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılması oldu. Belə ki, 1995-ci ildə qəbul olunmuş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını formalaşdırdı. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçdi. Heydər Əliyevin müəllifliyi ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu ali sənəd müstəqil Azərbaycanın Konstitusiyası kimi tarixə yazıldı. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açdı. Bu hadisə dövlət müstəqilliyinin prioritet istiqamətlərini müəyyənləşdirmək və həyata keçirmək yolunda əsas istinad mənbəyi rolunu oynadı. Hüquqi dövlət quruculuğu, ölkənin iqtisadi və sosial inkişafı, Azərbaycanda mülki cəmiyyətin qurulması, milli təhlükəsizlik və xarici siyasət problemlərinin həlli, milli-mənəvi inkişaf istiqamətində görülən ardıcıl işlər bütövlükdə müstəqillik və milli dövlətçilik amalının praktiki baxımdan bərqərar olmasına yönəlmişdir.

Heydər Əliyev həm də Azərbaycan elminin böyük hamisi idi. Elmə, təhsilə, alimlərə, ziyalılara həmişə yüksək qiymət verirdi. Respublikaya birinci və ikinci rəhbərliyi dövründə Azərbaycan elmi, təhsili dünya elminə birbaşa inteqrasiya olunmaq imkanı qazandı, cəmiyyət həyatına, onun tərəqqisinə xidmət edən fundamental kəşflər edildi. Hələ ötən əsrin 70-ci illərində Elmlər Akademiyası Heydər Əliyevin böyük təşkilatçılıq istedadı nəticəsində dünyada şöhrət qazandı, özünün kadr potensialını, texniki arsenalını yaratdı. İndi hamı belə bir tarixi gerçəkliyi təsdiq edir ki, Heydər Əliyev rəhbər vəzifədə olmadığı illərdə akademiyanın məhv olmaq təhlükəsi var idi. Ümummilli lider 1993-cü ildən xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan elmi yenidən dirçəliş yoluna qədəm qoydu. Naxçıvandan Bakıya dönən Heydər Əliyevin ilk görüş yeri kimi Elmlər Akademiyasını seçməsi də təsadüfi deyildi. Bununla dövlətçilik ənənələrini sistemli şəkildə davam etdirən görkəmli dövlət xadimi kimi yeni yaratmağa başladığı müstəqil dövlətin bünövrəsinin elmi sütunlar üzərində qurulduğunu, intellektual potensiala arxalandığını ictimai fikrə çatdırdı. Bu, bir tərəfdən Heydər Əliyevin Azərbaycan elminə, intellektinə böyük hörmətinin təsdiqi idisə, digər tərəfdən respublika ziyalılarının Heydər Əliyev şəxsiyyətinə sonsuz inam və yüksək etimadının bariz nümunəsi idi.

Heydər Əliyev XX əsrdə Azərbaycan xalqının yetişdirdiyi çox görkəmli sima, dövlət idarəçiliyi sahəsində son dərəcə böyük və təcrübəli siyasət adamı, dövlət xadimi idi. Heydər Əliyev Azərbaycanın, dövlətimizin tarixində həmişəlik qalacaq və həmişə anılacaq bir şəxsiyyətdir. Onun zəngin dövlətçilik təcrübəsi bu gün bütün dünyada etiraf olunur və hörmətlə qarşılanır, yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, bu gün Ukraynada Heydər Əliyev adına Sosial-Siyasi Elmlər İnstitutu təşkil edilib və onun zəngin dövlətçilik təcrübəsi öyrənilir. XX əsrdə yetişən dövlət xadimləri içərisində onun özünəməxsus yeri və nüfuzu var. Belə şəxsiyyətlər dünyada çox azdır.

Belə bir şəxsiyyətin dövlətçilik, idarəçilik irsinin öyrənilməsi bu gün çox vacibdir. Bu missiyanı daşıyan ümummilli lider Heydər Əliyevin diqqət və qayğısı ilə yaradılmış Dövlət İdarəçilik Akademiyasının qarşısında çox mühüm vəzifələr durur.

Dövlət idarəçiliyi mexanizminin təkmilləşdirilməsi tədbirləri sırasında dövlət idarəetmə sahəsi üçün mütəxəssislər hazırlanması işinin müasir tələblərə uyğun qurulması, onların peşəkarlıq səviyyəsinin artırılması, dövlət idarəçiliyi sahəsində elmi-tədqiqatlar aparılmasının təşkili və həmin sahənin analitik-informasiya təminatının möhkəmləndirilməsi akademiyanın qarşısında duran başlıca vəzifələrdəndir. Şübhəsiz, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi nəinki yüksək peşəkarlıq və zəkanı, həmçinin, yüksək əxlaqi və mənəvi keyfiyyətləri, özünün vətənpərvərlik və Vətənə hədsiz sədaqəti ilə seçilən kadrların hazırlanması və tərbiyə olunmasını ehtiva edir. Bütün bunlarla yanaşı, akademiya həm də milli ideologiyamızın formalaşması, inkişaf etdirilməsi və təbliği sahəsində mühüm rol oynayır. Ümummilli lider milli-mənəvi dəyərlərə sadiqliyini bütün fəaliyyəti boyu qoruyub saxlamış, dövlət idarəçiliyində bu meyarlara mühüm önəm vermişdir. Heydər Əliyevin bu mövzudakı çoxsaylı çıxışları gənc nəsil üçün örnəkdir: O deyirdi ki, *"Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi xalq ola bilməz. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin ən əsası bizim müqəddəs kitabımız Qurani-Şərifdə öz əksini tapmışdır. Ancaq bununla belə, Azərbaycanın təfəkkürlü insanları, mütərəqqi insanları, Azərbaycanın böyük şəxsiyyətləri, Azərbaycanın hörmətli siyasi və dövlət xadimləri, böyük elm, mədəniyyət xadimləri Azərbaycan xalqının milli-mənəvi dəyərlərini yaradıbdır. Biz bunların hamısı ilə fəxr etməliyik"*.

Akademiyada ulu öndər Heydər Əliyev irsinin, bu böyük dövlət xadiminin, hakimiyyət ustasının zəngin dövlətçilik təcrübəsinin, idarəetmə fəlsəfəsinin öyrənilməsi və gənc nəslə əxz edilməsinə də vacib məsələ kimi yanaşılır. Təsadüfi deyil ki, akademiyada "Heydər Əliyevin Dövlət idarəçilik təcrübəsi" ayrıca fənn kimi tədris olunur. Fəaliyyətdə olan "Heydər Əliyev Dövlət İdarəçilik Universiteti" bu istiqamətdə ciddi araşdırmalar

aparmaq, ulu öndərin həyatının şərəfli səhifələrini dolğun şəkildə açıb ictimaiyyətə göstərmək, onun zəngin ideya-fəlsəfi dünyagörüşünə əsaslanan müasir dövlətçilik konsepsiyasını təbliğ etmək istiqamətində mühüm işlər görülür.

Sevindirici haldır ki, 2003-cü ildə xalqın yüksək etimadı ilə Azərbaycan Prezidenti seçilən cənab İlham Əliyev əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş sosial-iqtisadi inkişaf və siyasi sabitlik kursunu əzmkarlıqla davam etdirir. Dövlət başçısı əməli fəaliyyəti ilə hələ seçki ərəfəsində verdiyi bütün vədlərə sadiqliyini təsdiqləmişdir. Mövcud imkanların bərabər paylanması inkişafın mühüm şərtlərindəndir və Azərbaycan Prezidenti bu amili əsl siyasətçilərə xas peşəkarlıqla nəzərə alır: ölkəmizin sosial-iqtisadi uğurlarını digər əhəmiyyətli sahələrin tərəqqisinə yönəldir, bununla əlaqədar bir sıra vacib fərmanlar, sərəncamlar, dövlət proqramları imzalayır. Azərbaycan təhsilinin, elminin, mədəniyyətinin, incəsənətinin, idmanının, bir sözlə, mədəni-intellektual potensialının daha da inkişaf etdirilməsi dövlət başçısının diqqət mərkəzindədir.

Azərbaycan Prezidenti təhsil sisteminin mövcud problemlərini, incəliklərini dərindən bilir və onların tez bir zamanda aradan qaldırılmasına çalışır. Təsadüfi deyil ki, dövlət büdcəsindən ən böyük vəsait ayrılan sahələrdən biri məhz təhsil sferasıdır. Həmin vəsaitin müəyyən hissəsi regionlarda yeni məktəblərin tikintisinə, təhsil müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəlir. Regionların inkişafına diqqətin artırılması çox vacibdir. Burada diqqəti cəlb edən bir də odur ki, hazırda regionlarda böyük canlanma var. 1 milyona qədər qaçqınımız var, ərazilərimizin xeyli hissəsi işğal olunub, belə bir məmləkətdə, belə bir şəraitdə təbii ki, regionlarla mərkəz arasındakı iqtisadi inkişaf, tarazlıq pozulmalı idi. Regionlar çox sürətlə geri qalırdı. Və olduqca vacib olan bu problemin həllində cənab Prezident İlham Əliyevin gördüyü işlərin böyük əhəmiyyəti var. Ən əsas isə bu yolun düzgün olmasıdır. Həqiqətən də bu yolda çox qısa bir müddətdə böyük işlər görülmüşdür. Xarici investisiyaların qoyulması, iş adamlarının vəsaitlərindən istifadə edilməsi, bank-kredit sisteminin işə salınması və bunlar hamısı bu səmtə yönəldilib.

Ölkəmizin ötən illər ərzində məqsədyönlü, balanslaşdırılmış xarici siyasət kursu hesabına geosiyasi qarşıdurmalar poliqonu olmaq təhlükəsindən uzaqlaşaraq əməkdaşlıq və maraqların uzlaşması məkanına çevrilməsi faktı bu gün diqqətdə duran məsələlərdəndir. Bu "Azərbaycan rəqabət yox, qarşıdurma yox, əməkdaşlıq məkanına çevrilməlidir. İlk növbədə Azərbaycanın milli maraqları təmin olunmalıdır" prinsipinə daim sadiq qalan cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin təntənəsidir.

Prezidentliyə başladığı ilk gündən cənab İlham Əliyev Heydər Əliyev siyasi kursunun davam etdirildiyini bir daha bəyan etdi: "Heydər Əliyevin siyasəti yaşamalıdır. Bu, zamanın tələbidir. Bu, yeganə siyasətdir ki, Azərbaycanı daha da gücləndirəcək, Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşmasına xidmət edəcəkdir".

Ölkəmizdə 2008-ci il oktyabrın 15-də keçirilən prezident seçkilərində Heydər Əliyev ideyalarının layiqli davamçısı cənab İlham Əliyevin növbəti parlaq qələbəsi yuxarıda sadalanan nəhəng islahatlar prosesinə və ulu öndərin ideyalarına olan ümumxalq münasibətini bir daha əyani şəkildə nümayiş etdirdi.

***Bütün bunlar göstərir və təsdiq edir ki, həqiqətən Heydər Əliyevin nəzəri müddəaları, dövlət idarəçiliyi sahəsindəki zəngin təcrübəsi hər zaman və hər bir işdə nümunə kimi bizə kömək olacaqdır. Prezident İlham Əliyevin sədri olduğu Yeni Azərbaycan Partiyasının IV qurultayında qeyd etdiyi kimi: "Biz bilirik nə istəyirik, biz bilirik hansı məqsədlərə doğru gedirik. Bizim siyasətimiz açıqdır, aydındır, atılan addımlarımız düzgün istiqamətdədir və məqsədimiz ölkəmizi daha da gücləndirmək, dünyada Azərbaycanın mövqelərini möhkəmləndirməkdir. Bizim siyasətimiz Heydər Əliyev siyasətidir, Heydər Əliyevin qoyduğu yoldur. Bizim dayağımız Azərbaycan xalqıdır və iqtidarın mənbəyi xalqdır. Biz bütün təşəbbüslərdə Azərbaycan xalqının dəstəyinə arxalanırıq. Bizim ideologiyamız azərbaycançılıq, dövlətçilik, müstəqillik ideologiyasıdır. Bu da bütün cəmiyyəti birləşdirir və biz bu yolla uğurla addımlayırıq."***

**"Azərbaycan".-** 2009.-9 may.- № 100.- S. 5.

# HEYDƏR ƏLİYEV DÜHASI YÜKSƏLİŞ YOLLARINA İŞIQ SALIR

**Səlahəddin XƏLİLOV,**
Azərbaycan Universitetinin professoru

**Qloballaşma şəraitində milli özünəməxsusluğun qorunub saxlanması, habelə, milli-mənəvi dəyərlərə sədaqətlə yanaşı, ümumbəşəri dəyərlərin, beynəlxalq hüquq normalarının və s. inkişaf etdirilməsi, böyük dövlətlər və qonşularla münasibətlərin qurulmasında tarazlığın qorunması, – bütün bunlar Azərbaycanın müsbət siyasi aurasını, özünəməxsus beynəlxalq imicini formalaşdırmışdır.**

Bu gün müstəqil Azərbaycan dövlətinin öz siyasi dəst-xətti, öz dövlətçilik siması, öz inkişaf yolu vardır. Artıq on altı ildir ki, Azərbaycanda əsası Heydər Əliyev tərəfindən qoyulmuş vahid inkişaf strategiyası, siyasi-iqtisadi və mədəni-mənəvi təkamül konsepsiyası, vahid milli ideologiya formalaşmaqdadır. Dövlətimizin öz milli maraqlarına söykənən beynəlxalq siyasi kursu da, demokratikləşdirmə, hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti də göz qabağındadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin siyasi kursunu, sadəcə, qoruyub-saxlamaqla kifayətlənməyərək, onu yeni şəraitin tələblərinə uyğun surətdə, yaradıcılıqla inkişaf etdirməkdədir. Belə ki, “kursun saxlanması” heç də hər hansı bir dəyişikliyin olmasını istisna etmir. Əksinə, başqa bir şərait, başqa bir zaman, başqa bir siyasi və iqtisadi situasiya üçün səmərəli olan idarəçilik üsulları vaxtaşırı olaraq yeni zamanın, yeni situasiyanın tələblərinə uyğun surətdə dəyişdirilməsə, inkişafa nail olmaq mümkün deyil.

Ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulan bir sıra strateji layihələr XXI əsrin ilk illərindən başlayaraq uğurla həyata keçirilmiş və yeni layihələr işlənib-hazırlanmışdır. Bu sırada ilk növbədə Bakı-Tbilisi-Ceyhan neft kəməri qeyd edilməlidir. Bu kəmərin istifadəyə verilməsi böyük iqtisadi əhəmiyyətə malik olmaqla bərabər, regionun coğrafi-siyasi mənzərəsinə də təsir göstərir və Azərbaycanın mövqeyini daha da möhkəmləndirir. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişi, habelə bu yaxınlarda icrası planlaşdırılan Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkədə yeni bir vəziyyət yaradacaqdır. “Azərbaycan Avropa ilə Asiyanı dəmir yolu vasitəsilə birləşdirən ölkəyə çevrilir və əlbəttə ki, regional işlərdə bizim önəmimiz artır” (İlham Əliyev).

Azərbaycan hökumətinin strukturundakı dəyişikliklər, xüsusən, Hərbi Sənaye Nazirliyinin və Fövqəladə Hallar Nazirliyinin yaradılması da bu sahədə uzunmüddətli planlardan xəbər verir. Prezident İlham Əliyev Milli Məclisin 2006-cı il payız sessiyasının açılışındakı nitqində bu kursun növbəti illərdə də davam etdiriləcəyini vurğulamışdır: “Azərbaycanın hərbi büdcəsi Ermənistanın bütün büdcəsinə bərabər olmalıdır və gələn il biz buna nail olacağıq. Biz bu təzyiqləri davam etdirməliyik. Əgər Ermənistan tərəfi bu təzyiqləri görməsə və bu təzyiqlərdən ehtiyatlanmasa, Azərbaycanın artan imkanlarından narahat olmasa, onlar işğal olunmuş torpaqlardan çətin ki, öz xoşları ilə çıxsınlar”. Azərbaycan artıq o ölkədir ki, öz iqtisadi, siyasi, hərbi potensialından istifadə edib istədiyinə nail olacaqdır”. Son illərdə Azərbaycanda aparılan geniş miqyaslı islahatlar və həm siyasi, həm də sosial-iqtisadi sahələrdə qazanılan böyük uğurlar Prezidentin bu sahədə dediklərinin reallığını əyani surətdə sübut edir.

Bütün bu nəilliyyətlər ölkəmizin dünya miqyasında ən yüksək inkişaf tempindən xəbər verir. Həm də bütün bu iqtisadi uğurların məhz xalqın maraqlarına, əhalinin güzəranının yaxşılaşmasına yönəldilməsi nəzərdə tutulmuşdur. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci ilinə həsr olunmuş konfransda İlham Əliyev demişdir: “Bütün bu planların təməlində bir məqsəd dayanır: ölkəmiz daha da möhkəmlənsin, daha da zənginləşsin, Azərbaycan hərtərəfli inkişaf etsin, Azərbaycan xalqı daha da yaxşı yaşasın, daha da yaxşı maaş alsın, pensiya alsın və Azərbaycan bölgədə öz mövqelərini daha da möhkəmləndirsin”.

Əlamətdar haldır ki, Azərbaycanda qeyri-neft sektorunun inkişafı heç də təkcə kənd təsərrüfatı məhsullarının istehsalı və yüngül sənayenin hesabına deyil, xeyli dərəcədə müasir informasiya texnologiyalarının tətbiqi sahəsində həyata keçirilir. Son illərdə elm, təhsil və təsərrüfat sahələrinin kompyuterləşməsi, yeni kommunikasiya sistemlərinə keçid, rabitə və informasiya texnologiyalarının modernləşməsi sahəsində böyük uğurlar əldə edilmişdir. Bütün bunlar Azərbaycanın heç də yalnız öz təbii sərvətlərinə yönəldilmiş passiv iqtisadi siyasət aparmadığını və elm tutumlu sahələrin inkişafına üstünlük verdiyini göstərir.

Prezident İlham Əliyev Azərbaycan ərazisində iqtisadiyyatın mütənasib inkişafını təmin etmək üçün bütün bölgələrin iqtisadi dirçəlişini diqqət mərkəzinə çəkmişdir: “Azərbaycanın hərtərəfli inkişafına nail olmaq üçün regional proqramlar həyata keçirilməlidir. Sizə bildirməliyəm ki, Azərbaycanın iqtisadi potensialının üçdə iki hissəsi Bakıda və Abşeron yarımadasında formalaşıbdır. Bu onu göstərir ki, regionlarda iqtisadi inkişaf ləng gedir. Əlbəttə, bunun da obyektiv səbəbləri vardır. Amma bu istiqamətlərdə dönüş yaratmaq üçün regional

proqramlara böyük diqqət göstərilməlidir ". Az müddət sonra, 2004-cü ilin fevral ayında Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı qəbul edildi və uğurla həyata keçirildi. Bu müddət ərzində qeyri-neft sektorunun inkişafı üçün xüsusi tədbirlər görülmüş, sahibkarlığın inkişafında maneələrin aradan qaldırılması istiqamətində bir sıra ciddi addımlar atılmışdır. Keçən altı il ərzində ölkəmizdə ictimai həyatın bütün sahələrində böyük uğurlar əldə edilmişdir. Bu uğurlar planlı və mütəşəkkil surətdə həyata keçirilir və uzun müddətə hesablanmış fəaliyyət proqramının tərkib hissələridir. İndi bütün dünyanı bürüyən maliyyə böhranı şəraitində ölkəmizin bu sınaqlardan da çox az itki ilə çıxmaq əzmi və hətta böhran dövründə də iqtisadi inkişafın davam etməsi ölkəmizdə sükanın etibarlı əllərdə olduğunu bir daha sübut edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə müvəffəqiyyətlə reallaşdırılan bu proqramlar Azərbaycanın istər qonşu dövlətlərlə, istərsə də qabaqcıl Avropa dövlətləri və ABŞ-la iqtisadi əlaqələrini əhatə edir. İlk növbədə, ölkəmizin milli maraqlarını rəhbər tutan genişmiqyaslı fəaliyyət proqramı Azərbaycan təsərrüfat sisteminin özəlliklərini nəzərə almaqla bərabər, onun dünya iqtisadiyyatına inteqrasiya olunması üçün də lazım olan bütün parametrləri ehtiva edir.

Yeni mərhələdə Heydər Əliyev ideyalarının Azərbaycanda daha intensiv surətdə həyata keçirilməsi təkcə dövlət quruculuğunu, dövlətin sosial-iqtisadi siyasətini əhatə etməyərək, həm də bütün ictimai resursların vahid mərama xidmət etməsi sayəsində mümkün olmuşdur. Bu sahədə ən mütəşəkkil və ardıcıl fəaliyyəti Heydər Əliyev Fondu göstərir. Məlum olduğu kimi, Heydər Əliyevin son sərəncamlarından biri yeni orta məktəb binalarının tikilməsi və təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında olmuşdur. Bu sərəncam indi müvafiq dövlət orqanları ilə yanaşı, Heydər Əliyev Fondu tərəfindən icraata götürülmüşdür. Qısa bir müddət ərzində yüzlərlə ən müasir standartlara uyğun məktəb binalarının inşası, "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının həyata keçirilməsi Azərbaycan təhsilinə ən böyük hədiyyədir. Fondun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoş məramlı səfiri, millət vəkili Mehriban Əliyevanın təhsil və mədəniyyətimizin inkişafı naminə göstərdiyi hərtərəfli fəaliyyət də Azərbaycanın yeniləşməsinə və qabaqcıl dövlətlər sırasına çıxmasına xidmət edir.

Əlbəttə, İlham Əliyevin dövlət başçısı olaraq uğurlarının səbəbi heç də təkcə onun öz fəaliyyətini bünövrəsi Heydər Əliyev tərəfindən qoyulmuş möhkəm bir zəmin üzərində qurması ilə məhdudlaşmır. Burada ikinci mühüm amil də özünü göstərir ki, bu da İlham Əliyevin bir siyasi lider kimi yeni iqtisadi münasibətlər şəraitində yetişmiş olması ilə əlaqədardır. Əgər yeni ictimai inkişaf mərhələsinə keçidin birinci fazası kommunist ideologiyasından imtina edilməsini və sosialist iqtisadi münasibətlərindən qarışıq bazar iqtisadiyyatına keçilməsini nəzərdə tuturdusa, ikinci faza həmin bu sinkretik ictimai-iqtisadi sistemin bazasında Qərb standartlarına uyğun islahatların davam etdirilməsini və vətəndaş cəmiyyətinə keçilməsini nəzərdə tutur. Yəni birinci keçid dövründə sosializm cəmiyyətinin, dövlət iqtisadiyyatının, kommunist ideologiyasının xüsusiyyətlərini yaxşı bilmək və yeni iqtisadi münasibətlərə sosializm dönəmində əldə olunmuş nailiyyətlərin dağıdılmasına yol vermədən keçmək tələb olunurdusa, indi bazar iqtisadiyyatının özünü yaxşı mənimsəmək, sahibkarlığın xüsusi çəkisini artırmaq, orta təbəqəni möhkəmləndirmək və vətəndaş cəmiyyətinə keçidi təmin etmək üçün sosial-iqtisadi baza yaratmaq və bütün bu irəliləyişi siyasi və hüquqi müstəvidə təsbit etmək, açılan yeni imkanlardan maksimum səmərəli istifadə etmək tələb olunur. Prezident İlham Əliyev məhz belə bir missiyanı öz üzərinə götürmüşdür və ardıcıl surətdə yerinə yetirməkdədir.

Bunu da qeyd etmək lazımdır ki, İlham Əliyevin mövqeyi, sadəcə, vədlər vermək deyil, real iş görmək mövqeyidir. O, doğrudan da, həyata keçirilməsini planlaşdırdığı, elmi və praktik cəhətdən real olan fəaliyyət proqramları ortaya qoyur ki, bu da əhalidə ona olan inamı daha da gücləndirir. ictimai şüur səviyyəsinin 90-cı illərin əvvəllərinə nisbətən xeyli yüksəlməsi daha vədlərlə spekulyasiyanın baş tutmasına imkan verməz. Azərbaycan xalqının milli mentaliteti elədir ki, onu halal zəhməti ilə pul qazanmaq imkanı daha çox cəlb edir. Bu baxımdan, İlham Əliyevin yeni müəssisələr tikilməsi, xarici investisiyanın daha geniş miqyasda cəlb olunması və yeni-yeni iş yerləri açılması istiqamətində gördüyü tədbirlər əhalidə böyük razılıq hissi ilə qarşılanır. Ötən müddət bu deyilənlərin, sadəcə, vəd deyil, real fəaliyyət proqramı olmasını təsdiq etdi. Qısa bir vaxtda 100 minlərlə iş yerinin açılması rəhbərliyin ən böyük uğurlarından biridir və həm də uğurlar təkcə vədlərin icrasından ibarət deyil. Sosial-iqtisadi inkişaf strategiyası, sahibkarlığın inkişafı, regionlarda yeni infrastruktur layihələrinin həyata keçirilməsi, təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi, məktəblərin kompyuterləşdirilməsi ilə bağlı addımlar bu sırada xüsusi qeyd edilməlidir.

Heydər Əliyev ona məxsus olan qeyri-adi istedad, yeniliyi duymaq, dövrün nəbzini tutmaq kimi keyfiyyətlərə malik olsa da, hər halda əvvəlki dövrdə, əvvəlki idarəetmə sistemində, əvvəlki iqtisadi münasibətlər şəraitində yetişib formalaşmışdı. Yeni dövrün tələblərinə uyğunlaşmaq və dövləti, cəmiyyəti bu istiqamətə yönəltmək üçün Heydər Əliyev keçmiş idarəçilik vərdişləri üzərində qələbə çalmaq, iş təcrübəsini

daim yeniləşdirmək sahəsində böyük əzm göstərir və zahirən hiss olunmasa da bu yol böyük daxili dramatizmi olan bir yol idi. Bu qeyri-adi şəxsiyyət həm zaman üzərində, həm uzun müddət sədaqətlə xidmət etdiyi bir ideologiya üzərində qələbə çalmaq üçün böyük intellektual və iradi enerji sərf edirdi.

İlham Əliyevin isə belə bir daxili mübarizəyə, öz üzərində qələbə üçün əlavə enerji məsrəfinə ehtiyacı yoxdur. Çünki o, artıq yeni zamanın, yeni ictimai-siyasi şəraitin yetirməsidir. Onun siyasi fəaliyyət təcrübəsi artıq yeni beynəlxalq münasibətlər və yeni iqtisadi sistem dövrünə təsadüf edir. Və İlham Əliyev bu yeni mühiti daxilən, içəridən mənimsəmək imkanına malikdir. Digər tərəfdən, İlham Əliyevlə bərabər bu yeni dövrün məhsulu olan bütöv bir komanda da yetişir ki, onlara bütün fəaliyyət məqamlarını diktə etməyə, hər böyük və kiçik məsələdə bələdçi olmağa, yuxarıdan tapşırıq verməyə xüsusi ehtiyac olmaya bilər. Yəni, hər kəs öz sahəsində daha çox müstəqillik və yaradıcılıq göstərə bilər ki, bu da yeni idarəçilik sisteminə keçid üçün mühüm şərtdir.

Burada belə bir amil də nəzərə alınmalıdır ki, yeni dəyərlər sisteminə keçidi təmin etməli olan adamlar arasında son illərdə Avropa ölkələrində, ABŞ-da təhsil almış və Qərb dəyərlərini bilavasitə mənimsəmiş gənclərin olması keçid dövrünün ikinci fazasını daha tez həyata keçirmək şansı verir.

Müasirlik dedikdə, Avropa dəyərləri dedikdə demokratikləşmə, plüralizm və s. ilə yanaşı, həm də peşəkarlığın ön plana çəkilməsi, işçilərin siyasi fəallıq görüntüsünə görə yox, məhz peşəkarlıq xüsusiyyətlərinə görə seçilməsi nəzərdə tutulur. Bu baxımdan, Dövlət qulluğu haqqında qəbul edilmiş qanunun səmərəli surətdə həyata keçirilməsinə, işçilərin vahid test sistemi ilə seçilməsinə, kadr siyasətində əldə olunmuş böyük uğur kimi dəyərləndirilməlidir.

Prezident İlham Əliyevin yeritdiyi siyasi kurs milli həmrəylik, milli birlik üçün yaranmış ictimai-siyasi şəraitin, imkanların reallaşdırılması üçün də böyük imkanlar açır ki, bu da daxili siyasət sahəsində ən böyük nailiyyətlərdən biridir. Onun dövlət başçısı kimi qətiyyətli mövqeyi və işə peşəkar münasibəti xarici siyasət sahəsində də özünü göstərir. Bir tərəfdən, ABŞ və Avropa ölkələri ilə, digər tərəfdən də, İslam ölkələri ilə sıx əməkdaşlıq və dostluq münasibətlərinin inkişaf etdirilməsi Azərbaycanın Şərq ilə Qərb arasında körpü rolunu oynamasını, mərkəzçi mövqeyini daha da möhkəmləndirir, əlaqələndiricilik missiyasını qaçılmaz edir. Azərbaycan, eyni zamanda, şimalla cənub arasında münasibətlərin mərkəzində dayanır. Həm Rusiya ilə, həm də Türkiyə və İranla iqtisadi əlaqələr getdikcə genişlənir.

İndi regionu nəinki Azərbaycansız təsəvvür etmək mümkün deyil, hətta ölkəmiz bölgənin, bütün Avrasiya məkanının aparıcı dövlətlərindən birinə çevrilmişdir. Ötən ilin yayında Rusiya ilə Gürcüstan arasında münasibətin gərginləşdiyi və hətta müharibə həddinə çatdığı bir şəraitdə Azərbaycan Prezidentinin nümayiş etdirdiyi səbatlı mövqe də Heydər Əliyevin "siyasətdə qıl körpüsündən necə keçmək haqqında" tövsiyələrinin necə mükəmməl surətdə mənimsənilməsinə dəlalət edir.

Azərbaycanın beynəlxalq nüfuzunun və iqtisadi qüdrətinin artması Dağlıq Qarabağ probleminin müzakirələrində də sözümüzün daha kəsərli olmasına imkan yaradır. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığı prinsipini qətiyyətlə müdafiə edir və ölkəmizin hərbi büdcəsini və ordunun maddi-texniki bazasını ildən-ilə daha da möhkəmləndirməklə bu məsələdə güzəştə getmək niyyətimizin olmadığını nümayiş etdirir.

XXI əsrdə ölkəmizdə iqtisadi inkişafın yüksək tempi elmi-nəzəri tədqiqatların və onların ideya-siyasi əsaslarının da daha geniş miqyasda təşkil olunması və institutlaşması üçün yeni imkanlar açır. Azərbaycan Respublikası Prezidentinin yanında açılmış Strateji Araşdırmalar Mərkəzinin, Dövlət İdarəçilik Akademiyasında fəaliyyət göstərən strateji araşdırma qurumlarının fəaliyyəti, habelə Milli Elmlər Akademiyasının müvafiq institutlarının fəaliyyətinin yenidən təşkil olunması istiqamətində görülən işlər Heydər Əliyev ideyalarının artıq bir şəxsin fəlsəfi görüşləri və nəzəri düşüncələri çərçivəsindən çıxaraq genişmiqyaslı ictimai prosesə çevrilməsinə, böyük vüsət almasına dəlalət edir. İdeya-siyasi və elmi-nəzəri tədqiqatların Heydər Əliyev irsi əsasında və yeni dövrün elmi nailiyyətlərinə istinadla düzgün yönləndirilməsinə, nəzəri-konseptual sistem halına gətirilməsinə bu irsin nəzəri aspektdə layiqli araşdırıcısı akademik Ramiz Mehdiyev başçılıq edir.

Onun tədqiqatlarında köhnə ideologiyadan imtina edərək yeni iqtisadi münasibətlərə və demokratik dəyərlər sisteminə keçən Azərbaycanın dövlət quruculuğu praktikası, siyasi və sosial-iqtisadi inkişaf yolu qloballaşma kontekstində nəzərdən keçirilir. Bununla əlaqədar olaraq qarşıya tək bir ölkə miqyasında deyil, bütün MDB məkanında aktual olan bir sıra problemlərin ümumi qanunauyğunluqlarını müəyyənləşdirmək və demokratikləşdirmənin Azərbaycandakı konkret təzahürlərini bu ümumi meyllərlə əlaqəli şəkildə araşdırmaq təşəbbüsü göstərilir.

Əsas vəzifə quruluşların və ideologiyaların əvəzlənməsi ilə sonuclanan keçid dövründə ortaya çıxan daxili və xarici amilləri vaxtında və düzgün nəzərə almaqdan ibarətdir. Əvvəllər belə bir keçidin praktik nümunəsi olmadığından onun elmi-fəlsəfi araşdırılması istiqamətində də heç bir iş görülməmişdir. Buna görə

də, hər bir ölkə quruculuq praktikası ilə yanaşı, nəzəri tədqiqatlara, yaranmış yeni ictimai-siyasi situasiyanın elmi əsaslarla dəyərləndirilməsinə böyük ehtiyac hiss edir.

Milli dövlətçilik və ictimai təşkilatlanma strategiyası və onun fəlsəfi əsasları işlənib hazırlanmasa, heç bir fəaliyyət sahəsində uğur qazanmaq mümkün deyil. İctimai inkişafın ikinci fazasına keçid və buna uyğun yeni iqtisadi münasibətlərin qərarlaşması mərhələsində milli dövlət quruculuğu ictimai gerçəkliyin dərin elmi təhlili ilə yanaşı, planetar miqyasda özünü göstərməkdə olan bir sıra tendensiyaların da üzə çıxarılmasını tələb edir. Heç bir ölkədə ictimai-siyasi proseslər başqalarını eynilə təkrar edə bilməz. Müxtəlif tarixi mərhələlərin də hərəsinin öz xüsusiyyəti vardır. Bununla belə, elmi idarəetmə və strateji planlaşdırma spesifik xüsusiyyətlərdən abstraksiya olunaraq ictimai inkişafın ümumi inkişaf meyllərinin üzə çıxarılmasını və onların nəzərə alınmasını tələb edir.

Heydər Əliyevin nəzəri irsini araşdıran tədqiqatlarda keçid cəmiyyətlərinin, həmçinin modernləşmə yoluna qədəm qoyan dövlətlərin nə kimi problemlərlə üzləşdiyi açılıb göstərilir. Şərqi Avropa ölkələri ilə yanaşı, bir sıra kapitalist ölkələrinin praktikası da nəzərdən keçirilir. Klassik ənənəvi cəmiyyətin, habelə qərarlaşmış ideoloji sistemin tədricən dağılması və yeni sosial-iqtisadi münasibətlər sisteminə demokratik yolla keçidin qanunauyğunluqlarının öyrənilməsi müəllifin əsas məqsədlərindən biridir. Burada o, ümumi qanunauyğunluqların təhlilindən konkret bir ölkədə – Azərbaycanda onların təzahür xüsusiyyətlərinin öyrənilməsinə keçir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni mərhələdə davam etdirilən demokratik dövlət quruculuğunun ideoloji və siyasi rakursu ön plana çəkilir. Xüsusi təzahürə ümumi tendensiya kontekstində baxılır və praktikada həyata keçirilənlərin hansı nəzəri modelə uyğun olduğu müəyyənləşdirilir. Daha sonra müəllif müasir ideoloji sistemlərin müqayisəli təhlilini verərək, hansı isə bir modelin xalis şəkildə gerçəkləşməsinin qeyri-mümkün olduğunu göstərir. O, liberalizmin də sosial-fəlsəfi köklərini açaraq, iqtisadi münasibətlərdə onun rəhbər tutulmasını qanunauyğun hesab edir. Liberalizm, şəxsiyyətin müstəqilliyini, cəmiyyətə və dövlətə münasibətdə onun ilkinliyi ideyasını ön plana çəkir ki, bu da Azərbaycanda dövlət quruculuğu praktikasında istifadə olunan məqamlardan biridir. Müəllif belə bir qənaətə gəlir ki, liberalizmlə konservatizmin sintezi olan, sosialist və demokratik ideyalarla tamamlanan neokonservatizm indi ölkəmiz üçün daha məqbul bir ideoloji konstruksiyadır.

Uğurlu xarici siyasət səmərəli iqtisadi siyasətlə tamamlanır. Liberallaşma və bazar iqtisadiyyatına əsaslanan keçid prosesi müxtəlif ölkələr üçün müxtəlif formalarda reallaşdırılır. Demokratik dövlət quruculuğunun, doğrudan da, böyük üstünlükləri vardır, lakin o, kor-korana surətdə deyil, elmi-nəzəri səviyyədə dərk edilməklə tətbiq olunmalıdır. Bunun üçün ictimai şüurun da tədricən inkişaf etməsinə nail olmaq lazımdır.

Azərbaycan yeni inkişaf mərhələsinə Prezident İlham Əliyevin rəhbərliyi ilə öz siyasi kursunu, demokratik dövlət quruculuğu modelini, öz iqtisadi inkişaf strategiyasını və mədəni-mənəvi dəyərlərini düşünülmüş surətdə həyata keçirmək əzmi ilə qədəm qoymuşdur və bu sahədə əməli fəaliyyətlə yanaşı, ona işıq salan və elmi-nəzəri əsaslara söykənən ardıcıl ideoloji və siyasi kurs mövcuddur. Və bu kursun gələcəkdə də davam etdirilməsinə böyük ehtiyac vardır.

Bir sözlə, bütün tədqiqatlar Prezident İlham Əliyevin yeritdiyi iqtisadi siyasətin orijinallığını və məhz Azərbaycanın müasir dövrdəki gerçəkliyindən intixab edildiyini göstərir. Yəni söhbət Avropada formalaşmış təlimlərin sadəcə mənimsənilməsindən və Azərbaycan gerçəkliyinə tətbiqindən deyil, Şərqi Avropa da daxil olmaqla böyük bir region üçün optimal sayıla biləcək yeni konsepsiyanın yaradılmasından gedir.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyevin yaradıcı surətdə inkişaf etdirdiyi ideya-nəzəri platforma və onun elmi-fəlsəfi araşdırılması sayəsində əldə olunan yeni biliklərin və tövsiyələrin geniş ictimaiyyətə çatdırılması işində Yeni Azərbaycan Partiyasının ideoloji fəaliyyəti ilə yanaşı, Heydər Əliyev Fondunda və digər təşkilatlarda fəaliyyət göstərən elmi və elmi-praktik yönlü əliyevşünaslıq mərkəzlərinin də böyük rolu vardır.

Nəzəriyyə ilə praktikanın vəhdətini təmin etmək üçün bundan sonra da ictimai elmlər sahəsində beynəlxalq miqyasda əldə edilmiş nailiyyətlərlə yanaşı, məhz Azərbaycanın ictimai-siyasi və iqtisadi gerçəkliyindən, konkret daxili və xarici vəziyyətdən çıxış edən konsepsiyaların formalaşdırılmasına böyük ehtiyac vardır. Və bu işin həyata keçirilməsinə bundan sonra da, heç şübhəsiz, Heydər Əliyev dühası işıq saçasaqdır.

“**Xalq qəzeti**”.-2009.-9 may.-N 100.-S.2.

# ÜMUMMİLLİ LİDERİN VƏTƏNPƏRVƏRLİK FENOMENİ

**İlham MƏMMƏDZADƏ,**
AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun direktoru,
fəlsəfə elmləri doktoru

Azərbaycan vətəndaşları üçün may ayı həm də ümummilli lider Heydər Əliyevin doğum günü ilə əlamətdardır. Ulu öndər 86 il əvvəl mayın 10-da dünyaya göz açmışdır. Bu tarixi gün ərəfəsində o böyük şəxsiyyətin əziz xatirəsi qədirbilən xalqımız tərəfindən minnətdarlıq hissi ilə yad edilir, onun misilsiz xidmətləri göz önünə gəlir, bütün məsələlər ətrafında düşünmək ehtiyacı yaranır.

Heydər Əliyev hər şeydən əvvəl öz xalqını, böyük məhəbbətlə sevən vətənpərvər bir şəxsiyyət idi. Onun "Anam məni Azərbaycan üçün dünyaya gətirib" kəlamında bu hiss səmimi şəkildə ifadə olunub. Ümummilli liderimizin vətənpərvərliyi müdafiə ruhlu idi, çünki müharibə gedirdi və ərazi toxunulmazlığı pozulmuş ölkəni işğalçılardan qorumaq lazım idi. Eyni zamanda, onun vətənpərvərliyi müasir elm və mədəniyyətin nailiyyətlərinə söykənən maarifçilik mahiyyəti daşıyırdı. Böyük mənada onun vətənpərvərliyi digər xalqlara və ölkələrə kin-küdurətdən, ədavətdən uzaq, öz ölkəsinin, dövlətinin və cəmiyyətinin inkişafına yönəlmiş vətənpərvərlik idi. Bu yaxınlarda Moskvada REA Fəlsəfə İnstitutunda keçirilən beynəlxalq konfransda iştirak etdiyim zaman, aradan uzun illər ötməsinə baxmayaraq, Rusiya filosoflarının onun xatirəsini necə böyük hörmətlə yad etdiklərinin şahidi oldum və bundan sonsuz qürur duydum.

Heydər Əliyev vətənpərvərliyinin çoxcəhətliliyi onun mənəvi irsini diqqətlə araşdırmağa cəhd edən, bu irsin bizim gələcək inkişafımız üçün mahiyyətini aydınlaşdırmağa çalışan bir sıra tədqiqatçıların əsərlərində təhlil edilmişdir. Onun irsini, vətənpərvərliyini təhlil edərkən və dərindən anlamağa çalışarkən ümummilli liderin gənclərə, gələcəyimizə göstərdiyi böyük qayğının şahidi oluruq. Gənclərə diqqət yalnız gələcəyə məhəbbətlə bitmir, o, həmçinin ölkənin modernləşməsinə, formalaşmaqda olan gənclərin şüuruna təsir göstərir. Ümummilli lider çox gözəl başa düşürdü ki, şüurda dəyişikliyi yalnız təhsil, elm vasitəsilə həyata keçirmək olar. Belə bir fakt da məlumdur ki, hələ sovetlər dövründə azərbaycanlılar orduda yalnız inşaat batalyonlarında qulluq edirdilər. Bu ziyanlı tendensiyanı məhz Heydər Əliyev aradan qaldırdı və ordunun müxtəlif strukturalarında azərbaycanlı zabitlərin sayının artırılmasına nail oldu. Eyni zamanda, o, çalışırdı ki, azərbaycanlı gənclər sovetlər dövründə Sovet İttifaqının, müstəqillik əldə etdikdən sonra isə dünyanın ən yaxşı tədris müəssisələrində təhsil ala bilsinlər.

Məlumdur ki, vətənpərvərlik dəyişkən fenomendir və bunsuz nə dövlət, nə də cəmiyyət inkişaf edə bilər. Təbii ki, modernləşmə və qloballaşma şəraitində vətənpərvərlik fərqli xüsusiyyətlərə malikdir. Müstəqilliyimizin ilk illərində vətənpərvərlik bir qədər başqa mahiyyət daşıyırdı. O zaman ümummilli liderin zəkası və iradəsi, həmçinin şəxsi vətənpərvərlik nümunəsi sayəsində vətəndaşları Vətəni və dövləti qorumaq ideyası ətrafında birləşdirmək lazım idi. Bu, o dövr üçün vətəndaşların fikir müxtəlifliyindən daha vacib idi. Ümummilli liderimizin azərbaycanlı olduğu ilə fəxr etməsi fikrini yada salaq. Bu gün bir çoxları bu fikri təkrar edir və azərbaycanlı olduqları ilə fəxr etdiklərini bildirirlər. Və yaxud onun bizim üçün mühüm olan "bir millət, iki dövlət" tezisini götürək. Burada vurğunu yalnız "millət" ifadəsinin deyil, "dövlət" ifadəsinin də üzərinə qoymaq olar. Azərbaycan dövlətinin yaranmasında, bərqərar olmasında, möhkəmlənməsində, müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsində böyük işlər görmüş Heydər Əliyev, iki dövlət haqqında belə bir tezisin irəli sürülməsinin məsuliyyətini yaxşı başa düşürdü.

Azərbaycan vətəndaşları vətənpərvərdirlər. Sosioloji sorğular sübut edir ki, bizim üçün ən qiymətli dəyər – müstəqil dövlətimizdir. Lakin çətinlik törədən məsələ vətənpərvərliyin müxtəlifliyindədir. Vətənpərvərlik birləşdirə də bilər, ayıra da bilər. O, cəmiyyəti, xalqın mədəniyyətini inkişaf da etdirə bilər, eyni zamanda, mədəniyyəti qapalı, anklav vəziyyətə sala da bilər və hətta cırlaşdıra bilər.

Vətənpərvərlik emosiyalarla, hisslərlə bağlıdır. Emosiya və hisslərin tərbiyə edilməsi müsbət, xeyirxah işdir. Lakin vətənpərvərlik yalnız hiss deyil. Bəlkə də ona görə, cəmiyyətdə milli ideologiya anlayışına, yəni vətənpərvərliyin formalaşdırılmasında və tərbiyə edilməsində bilik və dəyərlərin, davranış standartlarının və əxlaqın müəyyənləşdirilməsinə zərurət yaranır. Təməlində dövlət, cəmiyyət, ölkənin keçmişi, bugünü və gələcəyi haqqında biliklər sistemi olan vətənpərvərlik artıq maarifçi vətənpərvərlikdir, yəni bu, yalnız hiss deyil, ölkəni inkişaf etdirmək, ölkədə münasibətləri yaxşılaşdırmaq imkanları aramaqdır. Burada həm siyasi, həm iqtisadi, həm də mədəni münasibətlər nəzərdə tutulur. Bütün bu münasibətlər biliyin, əxlaqın, insana hörmətin nəticəsində yüksələ bilir. Bu kontekstdə qeyd etmək yerinə düşər ki, bir çoxlarından fərqli olaraq, ümummilli liderimiz cəmiyyətin və dövlətin inkişafında elmin əhəmiyyətini yaxşı başa düşürdü. Belə ki 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra, hələ ölkənin müstəqilliyinin mövcudluğu sual altında olan zaman, Heydər

Əliyevin gəldiyi ilk ünvan Azərbaycan Elmlər Akademiyası olmuşdur. Ulu öndər ölkəmizin müstəqilliyinin ən çətin ilk illərində EA-nın fəaliyyətinə böyük diqqət göstərmiş, onun maliyyələşdirilməsini dəfələrlə artırmışdır. Heydər Əliyev bir çox alimləri şəxsən tanıyırdı və onların nailiyyətlərini diqqətlə izləyirdi. Elmə münasibət onda əvvəllər də bu şəkildə mövcud olmuşdur və ömrü boyu dəyişməmişdir.

Beləliklə, vətənpərvərlik hissinin vətənpərvərlik bilgisi, xüsusi vətənpərvərlik şüuru ilə birləşməsi kimi əlahiddə, xüsusiyyəti aşkar olunur. Hissə və emosiyaya əsaslanan vətənpərvərlik təhrifedici effekt yarada bilər və ayrıca bir insanda öz yaxınına olan məhəbbət əks-təsirə, yəni digər insanlara qarşı mənfi münasibətə səbəb ola bilər. Digər xalqların tarixində dəfələrlə müşahidə olunub ki, onların vətənlərinə olan məhəbbətləri, öz xalqlarına, mədəniyyətlərinə, dillərinə heyranlığı sonradan özgəsinə qarşı nifrətə çevrilmiş, onun boğulmasına, məhv edilməsinə səbəb olmuşdur. Bununla belə, qeyd etmək lazımdır ki, vətənpərvərlik bu qiyafədə ənənəvi xarakter daşıyır və müəyyən mənada, müdafiə, hərbi münasibətlər kontekstində yetərli ola bilir. Bu mənada vətənpərvərlik bizə 90-cı illərin əvvəllərində lazım idi. Dövlətçilik nöqteyi-nəzərindən o dövrdə əhalinin vəzifəsi düşmənə nifrət hissini gücləndirməkdən, işğalçının ərazimizə, mədəniyyətimizə, tarixi abidələrimizə təcavüzünü dəf etməyə hazır olmaqdan ibarət idi. Və bu gün də bu cür vətənpərvərliyin bizim üçün əhəmiyyətinin azaldığından danışmaq tezdir. Çünki işğal altında olan torpaqlarımızı azad etmək, qaçqın və məcburi köçkünlərimizi ata-baba yurdlarına qaytarmaq üçün bizim hələ də hərbi-müdafiə vətənpərvərliyinə ehtiyacımız var. Lakin nəzərə almaq lazımdır ki, düşmənə nifrət hissi ölçüdən kənara çıxmamalıdır, müəyyən çərçivə daxilində olmalıdır. Bu sərhədlərin təyin olunmasında isə bilik və mədəniyyət mühüm rol oynayır.

Vətənpərvərliyin ikinci dərki, onun maarifçiliklə, elmlə, mədəniyyətlə birləşməsi bir sıra ölkələrdə XIX əsrdə baş vermişdir. Məsələn, məşhur fransız yazıçısı Emil Zolya antisemitizmə qarşı çıxaraq Dreyfusu müdafiəyə qalxmışdı. Lakin əksər ölkələrdə belə vətənpərvərlik XX əsrdən formalaşmağa başlamışdır. Bir qayda olaraq, bu, izolyasiyanizmin başa çatması, qlobal proseslərə qoşulma, vətənpərvərliyin müharibə dili ilə yazılmasının bitməsi, elm və mədəniyyətin inkişafının yüksəlişi, təhsil sistemində ciddi dəyişikliklərin həyata keçirilməsi və s. ilə bağlıdır. Son illər elmdə millətlərin mədəniyyətlərindəki fərqliliyə müxtəlifliyi aşkar etmək məqsədi daşıyan müqayisəli-sosioloji tədqiqatların sürətlə inkişaf etməsi diqqəti çəkir. Məhz bu tədqiqatlar mədəniyyətin bir neçə növünü aşkar edib. Lakin daha çox yayılmış iki növü mövcuddur: bəzi mədəniyyətlər üçün sabitlik, təhlükəsizlik, vəziyyəti əvvəlcədən müəyyənləşdirmə, digərləri üçün isə risk əhəmiyyətlidir. Cəmiyyətdə vətənpərvərliyə münasibəti bir çox hallarda üstün mədəniyyətin tipi müəyyənləşdirir. Eyni zamanda, qeyd etmək lazımdır ki, qloballaşma bizdən bu məsələlərin dərk edilməsini və nəzərə alınmasını tələb edir.

Bəli, hərdən vətənpərvərlik təhlükəli də ola bilir. Bob Fossun “Kabare” filmini yada salaq. Bəzən o, millətçiliyə, ksenofobiyaya, faşizmə də keçə bilir. Lakin vətənpərvərlik hissi tərbiyə etmədən pozitiv heç bir şey əldə etmək olmaz. Dünyanın ən inkişaf etmiş ölkəsi olan ABŞ-ın əldə etdiyi uğurlu nəticələr özünəməxsus amerikan vətənpərvərliyinə söykənir. Məşhur amerikalı alimlərdən biri hesab edir ki, Amerika millətçiliyi və vətənpərvərliyi əsrlər boyu ən mükəmməl şəkildə özünü öz ölkəsilə eyniləşdirmək deməkdir. Bu vətənpərvərliyin məğzində şüurlu milli siyasət, cəmiyyətin bütün etnos və qruplarına qarşı dözümlülük, tolerantlıq hər bir vətəndaş üçün sonsuz imkanlar (xüsusilə sahibkarlar üçün), elmin inkişafına münasib şərait yaratmaq durur, yəni orada vətənpərvərlik fərdi azadlıqla, ağılla və nailiyyətin əldə edilməsində imkanlarla bağlıdır.

Ölkə Prezidenti İlham Əliyev ümummilli liderin ideyalarını böyük uğurla, yaradıcı surətdə davam etdirir (əbəs yerə xalq içində İlham Əliyevi Heydər Əliyevin “şah əsəri” adlandırmırlar) və bu gün Azərbaycan iqtisadiyyatı geniş şəkildə modernləşmə və liberallaşma istiqamətində inkişaf edir. İlham Əliyevin iradəsi və zəkası, müasir dövr iqtisadiyyatının və siyasətinin gerçəkliklərinə dərindən bələd olma bu proseslərə təkan verdi. Bu işlərdə keçmiş və yeni dəyərlərin şüurlu şəkildə əlaqələndirilməsi mühüm şərtdir.

“İlham Əliyev: mən öz Azərbaycanıma inanıram” kitabında dövlət başçımız qeyd edir ki, “Mən həyatımızın məğzini layiqli davranışda görürəm”. Bu illər ərzində möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə çox ciddi iqtisadi, siyasi və mədəni nailiyyətlər əldə edilmişdir. Güclü, sabit iqtisadi inkişafa malik olmaq, vətəndaşların rifahını yüksəltmək üçün dövlət başçısı çox qüvvə sərf etmişdir. Tədqiqatçılar İlham Əliyev tərəfindən aparılan modernləşmənin xüsusiyyətlərini ifadə etmək üçün “dinamik reformasiya” məfhumunu seçmişlər. Lakin, məlumdur ki, məsələ yalnız məfhumlarda deyil, islahatlar, transformasiyalar bir-birini əvəz etməli, bir-birini tamamlamalı, dövlətin və cəmiyyətin inkişafına impuls verməlidir. Bunlar ölkə vətəndaşları üçün nəzərdə tutulur və perspektivdə onların aktiv iştirakı ilə həyata keçirilməlidir. Əbəs yerə deyildir ki, İlham Əliyevin prezidentliyi dövründə “sosial və insan kapitalı” ideyası, “bizə aktiv orta təbəqə lazımdır” və s. kimi fikirlər tez-tez səslənir. Eyni zamanda, islahatların gedişatı göstərir ki, təşəbbüskarlığı,

aşkarlığı milli ideologiya ilə, başqa sözlə, vətənpərvərlik ideologiyası ilə bağlamaq lazımdır. Əks-təqdirdə özünəaludəlilik, proteksionizm, korrupsiya, eqoizm təhlükəsi yarana bilər.

Akademik, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev konseptual baxımdan böyük əhəmiyyətə malik, "Zaman haqqında düşünərkən və elitanı transformasiya edərkən: varislik və innovasiyalıq " əsərində yazır: " Demək lazımdır ki, reallığın və praktikanın göstərdiyi kimi, çox vaxt peşəkarlıq, intellekt və kreativlik daha az tələb edilən keyfiyyətlərə çevrilir, çünki dövlət müəssisələrində – nazirliklərdə, komitələrdə, regional strukturlarda şəxsi sədaqət prinsipi hələ də üstündür və bu, xidməti vəzifələrdə irəliləmək üçün əsas götürülür.» Müəllif Prezident İlham Əliyevin kadr siyasətinin fəlsəfəsini belə təqdim edir: "Kadrları rəhbərlərə münasibətdə yarınma, yaltaqlıq səviyyəsinə görə qiymətləndirmək qətiyyən yolverilməzdir. Ölkənin gələcəyi haqqında, onun perspektivləri barədə düşünən, Azərbaycanı insanların yaşayışı üçün əlverişli ölkəyə çevirməyə çalışanlar arasında belələrinə yer yoxdur və olmamalıdır". Bu əsərdə, demək olar ki, bizim modernləşmənin bütün strukturu və mahiyyəti təqdim edilmişdir.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bazar, qloballaşma və inteqrasiya vətənpərvərliyi inkar etmir, yalnız onu öz zamanına adekvat edir. Avropa İttifaqı, Avropa identikliyi alman və ya fransız vətənpərvərliyini inkar etmir. Avropa İttifaqı konkret olaraq Avropa dövlətlərinin və cəmiyyətlərinin ittifaqıdır. Əlbəttə, tədqiqatçılar son vaxtlar tez-tez Avropada cövlan edən böhran, onu təhdid edən radikalizm, ekstremizm, milli ədavət və s. haqqında danışırlar. Dünyada hamı yaxşı başa düşür ki, Avropa dövlətləri arasında təzadlar mövcuddur, vəziyyət müəyyən qədər gərginləşə bilər. Lakin bu, konfliktlər nə qədər dərin olsa da müharibəyə səbəb ola bilməz, çünki onlar öz milli və Avropa vətənpərvərliklərini barışdıra bilmişlər. Onlar bunu edə bilmişlər, biz də bunu bacarmalıyıq.

Prezident İlham Əliyev 2008-ci ildə sosiomədəni modernləşmə kursunu elan etdi. Belə düşünürük ki, bu modernləşmənin mənası, bir tərəfdən modernləşmə proseslərinə əhalinin daha çox hissəsini cəlb etməkdən, digər tərəfdən isə yeni maarifçilik vətənpərvərliyini formalaşdırmaqdan ibarətdir. Bu vətənpərvərliyi həyata keçirənlər isə siyasi hakimiyyət və ölkənin intellektual elitası ola bilər və olmalıdır. Əlbəttə, siyasi hakimiyyətdən və ölkənin intellektual elitasından, onun bacarığından da çox şey asılıdır. İlham Əliyev hesab edir ki, vətəndaşa qoyulan investisiya, onun qabiliyyət və əxlaqi keyfiyyətlərinin inkişaf etdirilməsi yeni idarəçilər elitasının yaranmasına gətirib çıxaracaqdır. Əlbəttə ki, belə bir elitanın yaradılması ölkə Prezidenti İlham Əliyevin təşəbbüsü ilə xaricdə təhsil almaq üçün göndərilən 5000 gənc azərbaycanlıdan çox asılıdır. Lakin onların fəaliyyəti Azərbaycanın perspektivləri ilə bağlıdır, bugünkü milli elita isə elə nəticələr ortaya qoymalıdır ki, təhsil almağa, işləməyə gedən, yeni bilik və qabiliyyətlərlə zənginləşmiş vətəndaşlarımız qayıdıb gəlsin, ölkəmiz onlar üçün cəlbedici olsun.

Belə düşünürük ki, bu şəraitin yaradılması maarifçilik vətənpərvərliyinə istiqamətlənmədən, cəmiyyətdə sağlam mənəvi ab-havanın yaradılmasından çox asılıdır. Bu istiqaməti hökumət müəyyən edir, lakin reallaşdırılması isə Azərbaycan Elmlər Akademiyası tərəfindən həyata keçirilməlidir. Bəzi dairələrdə heç bir əsası olmayan belə fikir də formalaşıb ki, guya Azərbaycana elm lazım deyil, madam ki, ölkənin alimləri Nobel mükafatı ala bilmirlər, deməli onlara ehtiyac da yoxdur və s. Belə bir səhv tezis də səslənir ki, başqa ölkələrdə akademiya yoxdur və deməli, bizə də lazım deyil, o, dövlətin boynunda artıq yükdür və s. Həqiqətdə isə, elmin inkişafı ölkəni qabaqcıl dövlətlərin sırasına qatır, sivil dünyaya qovuşdurur. Ona lazımi diqqət göstərildikdə yüksək səviyyəli milli elitanın formalaşması işi asanlaşa bilər. Elmə diqqətin artırılması həmçinin ölkədə pozitiv əxlaqi mühitin formalaşmasına, maarifçilik vətənpərvərliyi mədəniyyətinin tərbiyə olunmasına şərait yaradır. Məşhur fransız yazıçısı Jermena De Stal demişdir ki, əxlaqsızlıq düşüncənin məhdudluğunun nəticəsidir.

Prezident İlham Əliyevin "Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında" 2008-ci il 10 aprel tarixli sərəncamı, sübut edir ki, respublikamızda elmin cəmiyyətin inkişafındakı roluna böyük diqqət yetirilir. Sərəncamda elmə münasibətdə ciddi dəyişiklikdən söhbət gedir. Həmin sənədin məntiqi davamı kimi, ölkə rəhbəri bu günlərdə – 2009-cü il mayın 4-də "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"nın və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"nın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında yeni bir sərəncam imzaladı.

Ümumiyyətlə, bütün inkişaf etmiş ölkələrdə elmin maliyyələşdirilməsi stabil şəkildə artırılır və bu artım hətta dərin böhranların baş alıb getdiyi zamanlarda da davam edir. Məsələn, ABŞ-da fundamental elmlərin inkişafı üçün əlavə olaraq 18 milyard dollar ayrılmışdır. Avropada elmdə "yaşıl iqtisadiyyat", sosial texnologiyalar, mədəniyyətlərin müqayisəli tədqiqatı, bioetika və sosial əxlaq konsepsiyalarının inkişafına hazırlaşırlar. Bir çox ölkələrdə innovasiyon fəaliyyət haqqında qanunlar qəbul edilib. Bu da, ilk növbədə elmin maliyyələşdirilməsi deməkdir. Lakin əgər XX əsrdə elm haqqında söhbət gedərkən ilk növbədə təbiət elmləri nəzərdə tutulurdusa, bu gün innovasiyalar bütün elmləri əhatə edir. İnkişaf etmiş ölkələrdə artıq aydın başa

düşürlər ki, elmi bütövlükdə inkişaf etdirmək lazımdır. Əksər alimlər əmindir ki, cəmiyyətin inkişafının qanunauyğunluqlarını peşəkar səviyyədə öyrənən sahələr – fəlsəfə, sosiologiya, iqtisadiyyat və tarix – ekspert birliyinin əsasını təşkil etməlidir, çünki müasir dövrdə elmlərarası tədqiqatlara ehtiyac var. İnnovasiyon fəaliyyət elmə ekspert münasibəti olmadan həyata keçirilə bilməz.

Elmə olan münasibət dəyişikliyi kontekstində bir çox alimlər sosial texnologiyalar, elm və hakimiyyət arasında qarşılıqlı münasibətlərin texnologiyasını yenidən formalaşdırmaq və qurmaq haqqında danışırlar. Bir çox Rusiya və Qərb alimləri bildirirlər ki, innovasiyon inkişafa keçidi saxlayan əsas problem elmin idarə sisteminin desentralizasiyasıdır. Məsələn, ABŞ-da elm nazirliyi, akademiya yoxdur, lakin ölkənin elm siyasətini formalaşdıran ABŞ Prezidenti yanında Elmi Şura fəaliyyət göstərir. Orada elmə dövlət resurslarının paylanmasını təmin edən mərkəzləşdirilmiş sistem mövcuddur. Rusiya Elmlər Akademiyasında ciddi dəyişikliklər baş vermişdir. O əvvəllər də mərkəzləşdirilmişdi, lakin indi elmin idarə olunmasına ekspert şəklində alimlərin özləri cəlb edilib, onlar bunu Elmşünaslıq Birliyi adlandırırlar. Rusiyada, ilk növbədə, elmdə vəziyyəti aydınlaşdırmaq məqsədi ilə elmşünaslar arasında sosioloji sorğular keçirildi. Göründüyü kimi, ABŞ-da mərkəzləşmə tendensiyaları aşkar olunur, Rusiyada isə bu mərkəzləşmə ekspertlərin cəlb edilməsi ilə tamamlanır. Belə bir təşəbbüs reformaların həyata keçirilməsi üçün onların fikirlərini öyrənmək məqsədi güdür. Azərbaycanda bu siyasət Elmlər Akademiyası tərəfindən həyata keçirilə bilər və keçirilməlidir. Və qeyd etmək lazımdır ki, akademiyanın alimləri elmdə islahatların aparılmasına dair layihənin hazırlanmasında aktiv fəaliyyət göstərmişlər. Azərbaycan Elmlər Akademiyasının prezidenti dəfələrlə islahatların həyata keçirilməsi qaydaları haqqında məlumat vermişdir. Bunun üçün gənc mütəxəssislərə bu sahəni cəlbedici etmək məqsədilə elmin “qocalmasının” qarşısı alınmalıdır, tez-tez özlərini müstəqil adlandıran kiçik tədqiqat mərkəzləri ixtisar edilməli, müxtəlif, necə deyərlər, “elmətrafı fəaliyyət” dayandırılmalıdır. Bu sahədə islahatların səmərəli və ardıcıl surətdə aparılması şübhəsiz, elmin cəmiyyətin şüuruna, təhsil və mədəniyyət sferasına təsirinin artmasına, ümummilli lider Heydər Əliyevin arzularının reallaşmasına səbəb olacaqdır.

“**Xalq qəzeti**“.-2009.-9 may.-N 100.-S.3.

# XALQIMIZA QARŞI TÖRƏDİLMİŞ SOYQIRIMI VƏ DEPORTASİYALARA HEYDƏR ƏLİYEV BAXIŞI

**Ataxan PAŞAYEV,**
Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi,
tarix elmləri doktoru

Ulu öndərimiz Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də onun xalqımızın tarixinə, mədəniyyətinə, həqiqi övladlıq məhəbbəti idi. O, yaxşı başa düşürdü ki, hər bir xalqın həqiqi tarixi yalnız arxiv sənədləri əsasında yazıldıqda daha dəqiq, mükəmməl və inandırıcı olur. O, Milli Elmlər Akademiyasında alimlərlə görüşlərinin birində bu barədə demişdi: "Arxiv işlərinə gərək çox ciddi fikir verək. Bir tərəfdən ona görə ki, bu, xalqımızın tarixini əks etdirən yeganə mənbədir. İkincisi də ona görə ki, tariximizi təhrif edənlərin qarşısını almaq üçün çox mühüm amildir".

Uzun illər bu dahi şəxsiyyətin sənədlərdən istifadə üslubu ilə tanış olan bir şəxs kimi, Heydər Əliyevin tarixi mənbələrə və arxiv sənədlərinə qayğısının və onlara böyük əhəmiyyət verdiyinin şahidi olmuşam. Onlardan biri də xalqımızın tarixinin ən mühüm və taleyüklü məsələlərindən bəhs edən ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi deportasiya və soyqırımları tarixinə aid sənədlərə münasibət məsələsi idi.

"Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Sovetinin sədri İ. Stalin tərəfindən imzalanmış 1947-ci il 23 dekabr tarixli 4083 saylı və 1948-ci il 10 mart tarixli 754 saylı qərarları buna bariz misaldır. İ.Stalinin imzaladığı bu qərarlar bir ölkə daxilində yaşayan və ölkənin konstitusiya qanunu ilə bərabər hüquqlu hesab edilən iki xalqdan birinin xeyrinə başqasına qarşı tətbiq edilmiş deportasiya siyasəti xalqımıza qarşı əsl repressiya siyasəti idi.

Tamamilə gizli saxlanılan həmin qərarları 1990-cı ildə keçmiş SSRİ-nin mərkəzi arxivlərindən çox çətinliklə də olsa əldə edərək respublikamıza gətirmişdik. Tezliklə bu barədə respublikanın rəhbər partiya və sovet orqanlarına geniş məlumat vermiş, qəzet və jurnallarda məqalələr dərc etdirmiş, radio və televiziya vasitəsi ilə məlumat da vermişdik. Təəssüflər olsun ki, ermənilərin xalqımıza qarşı yenidən başladığı ərazi iddiaları və azərbaycanlıların Ermənistandan kütləvi surətdə qovulduğu bir zamanda Sovet hökumətinin xalqımıza qarşı apardığı bu cür ayrı-seçkilik siyasətini əks etdirən sənədlərə respublikamızda əsaslı bir reaksiya verilməmişdi.

1997-ci ildə böyük siyasətçi, bu cür sənədlərin mahiyyətini dərindən dərk edən ulu öndərimiz həmin sənədlər barədə məlumat əldə etdikdə ona çox kəskin reaksiya vermişdi. 1997-ci il may ayının 27-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 79-cu ildönümünə həsr olunmuş təntənəli iclasda öz nitqinin əhəmiyyətli bir hissəsini ulu öndərimiz bu sənədlərə münasibət məsələlərinə həsr etmişdi. Sovet hakimiyyəti dövründə Azərbaycan xalqına qarşı törədilmiş ədalətsizliklərdən bəhs edən Heydər Əliyev öz çıxışında demişdi: "Azərbaycan xalqına bu dövrdə vurulan ən böyük zərbələrdən biri də 1947-1948-ci illərdə Azərbaycan xalqına qarşı sovet hakimiyyəti tərəfindən edilmiş ən böyük ədalətsizlikdir. Təəssüflər olsun ki, tarixçilərimiz və hamımız nədənsə bu hadisəyə o vaxtlar da və indi də xüsusilə, dövlət müstəqilliyimizi əldə edəndən sonra da doğru-düzgün qiymət verə bilməmişik".

Öz nitqində həmin sənədləri geniş təhlil edən ümummilli liderimiz nitqini belə yekunlaşdırmışdı: "Təəssüflər olsun ki, biz tarixin cürbəcür mərhələlərində belə hadisələri lazımi qədər təhlil edə bilməmişik və xalqımıza edilən bu ədalətsizliklərə qarşı öz səsimizi lazımi qədər qaldırmamışıq. Məhz bunların nəticəsində də 1988-ci ildə Ermənistan Azərbaycana artıq təcavüz edibdir. O dövrdə Ermənistan ərazisində qalmış azərbaycanlılar qısa müddətdə Ermənistandan zorla çıxarıldılar".

Ulu öndər öz nitqində bildirirdi: Hamımıza yaxşı məlumdur ki, o vaxt bizim soydaşlarımız – azərbaycanlılar o yerlərdən, öz doğma vətənlərindən, yurdlarından zorla çıxarılarkən, deportasiya edilərkən nə qədər itkilər verdilər, çətinliklərə məruz qaldılar, nə qədər insanlar tələf oldular.

Həmin nitqində ümummilli liderimiz o dövrlə əlaqədar məsələlərə – Azərbaycana, xalqımıza qarşı edilmiş bu ədalətsizliklərlə əlaqədar məsələləri araşdırmaq, o məsələlərə siyasi qiymət vermək üçün xüsusi sərəncam, yaxud fərman imzalayacağını deyir. Bu sənəddə 70 il müddətində xalqımıza qarşı edilmiş ədalətsizliyi, verilmiş böyük itkiləri müəyyən edərək, gələcək nəsillərə bunları bildirməliyik ki, gələcəkdə Azərbaycana qarşı bir daha belə xəyanətlərin, tədbirlərin, təcavüzlərin qarşısı alına bilsin.

Bax bu idi böyük siyasətçi Heydər Əliyevin hadisələrə verdiyi siyasi qiymət və nəticə etibarı ilə lazımi tədbirlər planı hazırlamaq bacarığı. Məhz ulu öndərin bu nitqindən sonra məsələyə münasibət kökündən dəyişildi. Elə həmin il dekabr ayının 18-də Heydər Əliyev "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan

SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında " Azərbaycan Respublikası Prezidentinin fərmanını imzaladı.

Bu fərmanda həm çar Rusiyası və həm də sovet hakimiyyəti illərində Qafqazda xalqımıza qarşı törədilmiş ədalətsizliyə siyasi qiymət verilirdi. Fərmanda oxuyuruq: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri dağıdılıb viran edilmişdir" .

Fərmanda SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı kimi qiymətləndirilir. Fərmanda göstərilirdi ki, bu qərar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşlar. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürmə şəraitinə, kəskin iqlim dəyişikliklərinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.

Daha sonra fərmanda göstərilirdi ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir. Fərmanda 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə şəxsən özünün sədrliyi ilə xüsusi dövlət komissiyası yaradılır.

Ulu öndərimizin ən böyük xidmətlərindən biri xalqımız üçün tarixi və taleyüklü məsələyə – ermənilərin xalqımıza qarşı təxminən iki əsrə yaxın davam etmiş ermənilərin xalqımıza qarşı ərazi iddiaları ilə həyata keçirdiyi soyqırımı faktlarına münasibəti məsələsidir. Ermənilərin əvvəllər çar Rusiyası, sonra isə SSRİ rəhbərliyinin köməyi ilə Azərbaycan xalqına qarşı törətdikləri soyqırımlarına və deportasiyalara aid sənədlər uzun illər arxivlərimizdə tam gizli qriflə saxlanılmış, istifadəsinə qadağa qoyulmuşdu. Yalnız Azərbaycan Respublikası öz müstəqilliyini əldə etdikdən sonra bu sənədlərin istifadəsi xalqımızın tarixi keçmişinin ətraflı və obyektiv mənzərəsini yaratmaq imkanı yaratmışdır.

Azərbaycan xalqına qarşı ermənilərin dəfələrlə törətmiş olduğu və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış deportasiya və soyqırımı faktları da tariximizin açılmamış səhifələrindən biri idi.

Hələ XIX əsrin əvvəllərində çar Rusiyasının cənub dənizlərinə doğru həyata keçirdiyi müstəmləkəçilik siyasəti nəticəsində İranla Rusiya arasında baş vermiş müharibələr nəticəsində 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrinin bağlanması Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarının bölünməsinin əsasını qoymuşdur.

"Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 mart tarixli fərmanında deyildiyi kimi, "Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi, onun torpaqlarının zəbti başlanır".

Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilir. 1828-ci il Türkmənçay müqaviləsinə əsasən, İrandan 40 min nəfər erməni, Osmanlı imperiyası ilə Rusiya arasında baş vermiş müharibə nəticəsində bağlanılmış Ədirnə müqaviləsinə əsasən isə Osmanlıdan 86 min nəfər erməni Güney Qafqaza köçürülərək əsasən Azərbaycan türklərinin yaşadığı keçmiş İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində yerləşdirilir. Rusların bu ərazilərin işğalında xüsusi rol oynamış ermənilərin köməyi əvəzinə gəlmə ermənilər bu xanlıqların ərazilərində azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, ermənilər üçün Naxçıvan və İrəvan xanlıqlarının ərazisində rus çarının fərmanı ilə "erməni vilayəti" adı ilə inzibati ərazi bölgüsü yaradılmışdır.

Prezident fərmanında da qeyd edildiyi kimi, süni şəkildə yaradılmış bu ərazi bölgüsü ilə əslində "azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyulmuşdur".

Güney Qafqaza köçürülmüş və getdikcə öz yerlərini möhkəmləndirən ermənilər "Böyük Ermənistan" yaradılması ideyasının və onun təbliği siyasətinin əsasını qoyurlar.

Ermənilərin öz xəyallarında uydurduqları bu dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəldilmiş geniş miqyaslı proqramlar

hazırlanır və reallaşdırılır. Bu məsələlər xüsusilə XIX əsrin axırlarında yaradılmış "Armenakan", "Hnçaq", "Daşnaksütyun" və digər bu kimi şovinist erməni millətçi partiyaların proqramlarında geniş yer alır. Fərmanda da göstərildiyi kimi, "Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi".

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni şovinist millətçiləri 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı təcavüzlər həyata keçirirlər. Ermənilərin 1905-ci ilin fevralından Bakıdan başladıqları vəhşiliklər Azərbaycanı və indiki Ermənistan ərazisindəki azərbaycanlılar yaşayan şəhər və kəndləri əhatə edir. Bu hadisələr nəticəsində yüzlərlə yaşayış məntəqələri dağıdılaraq yerlə-yeksan edilir, minlərlə azərbaycanlı qətlə yetirilirdi. Bütün bunların təşkilatçıları olan ermənilər isə həmin məsələnin Qafqaz Canişininin iştirakı ilə müzakirəsi zamanı onların səbəbkarlarının aşkar edilməsi, hadisələrə doğru-düzgün qiymət verilməsinə ermənilər qəsdən maneçilik törədərək, azərbaycanlıların mənfi obrazını yaradır, özlərinin avantürist ərazi iddialarına haqq qazandırmaq istəyirdilər.

Ermənilərə erməni dövlətini yaratmaq üçün öz planlarının reallaşdırılmasında Birinci dünya müharibəsi və Rusiyada baş verən inqilabi hadisələrin xüsusilə böyük rolu oldu. Müharibə şəraitində Rusiyada baş vermiş fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən daşnak xislətli ermənilər öz məqsədlərini bolşevik bayrağı altında reallaşdırmağa nail oldular.

Prezident fərmanında da göstərildiyi kimi, 1918-ci ilin martından etibarən V.İ.Leninin xeyir-duası ilə əksinqilabi ünsürlərlə mübarizə şüarı altında S.Şaumyanın rəhbərlik etdiyi və əksəriyyəti ermənilərdən ibarət olan Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını yerli aborigen əhali olan azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur planı həyata keçirməyə başlayırlar.

1918-ci il mart ayının 19, 20, 21-də (yeni stillə 30, 31 mart və 1 apreldə) ermənilərin Bakıda törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşında əbədi olaraq həkk olunmuşdur. Həmin günlər 12 minə yaxın dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq abidələri, məktəblər, xəstəxanalar, qəzet-jurnal mətbəələri, məscidlər və s. dağıdılmış, yandırılmış Bakının azərbaycanlılar yaşayan hissəsi xarabalığa çevirmişdi.

Azərbaycanlıların soyqırımı Bakıdan sonra Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, İrəvan quberniyasının azərbaycanlılar yaşayan ərazilərində və digər bölgələrdə xüsusi qəddarlıqla həyata keçirilmişdi. Bakıda olduğu kimi, bu ərazilərdə də dinc əhali kütləvi surətdə soyqırımına məruz qalmış, şəhərlər və kəndlər yandırılmış, dağıdılmış, azərbaycanlılara məxsus milli mədəniyyət abidələri məhv edilmişdir.

1918-ci il mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci il mart hadisələrinin öyrənilməsinə xüsusi diqqət yetirmişdir. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci il iyulun 15-də Gəncədə keçirilən iclasında cümhuryyətin xarici işlər naziri M.H.Hacınskinin bu barədəki məruzəsini dinləyib geniş müzakirə edərək, baş vermiş faciələrin tədqiqi məqsədi ilə xüsusi Fövqəladə Təhqiqat Komissiyası yaratmaq barədə qərar qəbul etmişdi. Bakıda törədilmiş hadisələrlə əlaqədar Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1919 və 1920-ci illərdə martın 31-ni iki dəfə Ümummilli Matəm Günü kimi qeyd etmişdir. Prezident fərmanında da deyildiyi kimi, "əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı prosesinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işlərin başa çatdırılmasına imkan vermədi".

V. Lenin başda olmaqla sovet Rusiyasının onlara qarşı isti münasibətindən və Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzur qəzasını və Azərbaycanın bir sıra mübahisəsiz torpaqlarını öz ərazilərinə qatmağa nail oldular. Cidd-cəhdlə çalışsalar da Dağlıq Qarabağı ələ keçirə bilməyən ermənilər 1923-cü ilin iyulunda ona muxtar vilayət statusu verdirməyə nail ola bildilər. Məqsəd isə gələcəkdə nə yolla olursa-olsun onu Ermənistan SSR-ə birləşdirmək idi.

Belə ki, İkinci dünya müharibəsi qurtarandan sonra 1945-ci ilin noyabrında Ermənistan K(b)P MK-nın birinci katibi Q. Arutyunov İ. Stalinə məktubla müraciət edərək Dağlıq Qarabağı Ermənistan SSR-ə birləşdirməyi xahiş edir. Özü də xahişini belə bir yalan məlumatla əsaslandırırdı ki, guya Dağlıq Qarabağ Ermənistan SSR-lə həmsərhəddir, onun iqtisadiyyatı Ermənistan SSR iqtisadiyyatı ilə sıx bağlıdır.

Həmin məktub rəy üçün Azərbaycan rəhbərliyinə göndərilir. Dağlıq Qarabağın tarixi və əzəli Azərbaycan torpaqları olduğu haqqında ətraflı və əsaslandırılmış məlumat verən M. C. Bağırov öz məktubunun sonunda bildirir ki, Şuşa rayonunu çıxmaq şərti ilə Azərbaycan həmin təklifə etiraz etmir, bu şərtlə ki, Ermənistan SSR, Gürcüstan SSR və Dağıstan MSSR-də əsasən azərbaycanlılar yaşayan və Azərbaycanla həmsərhəd olan və tarixən Azərbaycanın ayrılmaz hissəsi olmuş ərazilər də Azərbaycan SSR-ə qaytarılsın. Beləliklə, bu xəmirin çox su aparacağını görən İttifaq rəhbərliyi ermənilərin təklifini nəticəsiz qoyur.

Belə olduqda ermənilər başqa vasitəyə əl atırlar. Belə ki İ.Stalinin razılığı ilə “öz doğma vətənlərinə” (?) qayıdan erməniləri qəbul etmək və yerləşdirmək üçün guya Ermənistan SSR-də torpaq sahəsi azlıq edir. Azərbaycanın Kür-Araz ovalığının pambıq əkilən rayonlarında isə işçi qüvvəsi çatışmır. Ermənistan SSR-dəki azərbaycanlı əhalinin Kür-Araz ovalığına köçürülməsi bu problemləri asanlıqla həll edər. Yəni həm xaricdən gələn ermənilər üçün yer boşalır, həm də Kür-Araz ovalığının pambıq əkən rayonları işçi qüvvəsi ilə təmin olunur.

Maraqlıdır ki, M.C. Bağırov da bu təkliflə razılaşır və 1947-ci ilin dekabr ayının əvvəllərində Q.A. Arutyunov birlikdə onlar bu barədə İ. Stalinə xüsusi məktubla müraciət edirlər. Onların məktubu cavabsız qalmır. İ.Stalinin imzaladığı 1947-ci il 23 dekabr tarixli “Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında” qərarda özünün geniş əksini tapır. Bu barədə Prezidentin 1998-ci il 18 dekabr tarixli fərmanı ilə əlaqədar yuxarıda ətraflı bəhs edilmişdir.

Ermənilər yenə də sakit dayanmırlar. “Azərbaycanlıların soyqırımı haqqında” Azərbaycan Respublikası Prezidentinin fərmanında da deyildiyi kimi, “erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başlayırlar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda, onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazlarını formalaşdırmaq cəhdləri də gücləndirilir. “Yazıq, məzlum erməni xalqı”nın surətini yaradaraq əsrin əvvəllərində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırımı törədənlər soyqırımı qurbanları kimi qələmə verilirdi”.

İrəvan şəhərində və Ermənistan SSR-in digər bölgələrində soydaşlarımız təqiblərə məruz qalır, təhqir olunur, kütləvi surətdə qovulurdular. Azərbaycanlıların hüquqları rəsmi hökumət orqanları tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almalarına əngəllər törədilir, imkanlar verilmirdi. Onlara qarşı repressiyalar həyata keçirilir, Azərbaycan kəndlərinin, tarixi yerlərin adları dəyişdirilərək erməni adları ilə əvəz olunurdu.

XX əsrin əllinci illərindən başlayaraq onsuz da saxtalaşdırılmış erməni tarixini daha da saxtalaşdıraraq gənc ermənilərin millətçilik və şovinizm ruhunda böyüməsinə zəmin yaratmaq Ermənistan SSR-də dövlət siyasəti səviyyəsinə qaldırılır. Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar uyduran ermənilər siyasi və hərbi təcavüzlər üçün ideoloji zəmin hazırlayırdılar.

Prezident fərmanında da qeyd olunduğu kimi, xalqımıza qarşı aparılan soyqırımı siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı.

Ermənilər sovet rejiminin onlar üçün yaratdığı şəraitdən, 1985-ci ildə erməniпərəst və avantürist M.Qorbaçovun SSRİ-də siyasi hakimiyyətə gəlməsindən bəhrələndilər. Onların getdikcə güclənən anti-Azərbaycan təbliğatına Azərbaycan Respublikasının səriştəsiz rəhbərlərinin vaxtında qiymət və cavab verə bilməməsi ermənilərə geniş əl-qol açmağa imkan verdi.

Nəticədə fərmanda da deyildiyi kimi, “1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliklərinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da Azərbaycanda düzgün siyasi qiymət verilmədi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə qatılması haqqında ermənilərin qeyri-konstitusion qərarını, vəziyyətdən istifadə edərək Moskvanın, əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Lakin respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də, Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi.

Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu. Dağlıq Qarabağdakı azərbaycanlı kəndlərindən də azərbaycanlılar kütləvi surətdə təqib edilərək zorla qovuldu və qırıldı.

Prezident fərmanında da göstərildiyi kimi, 1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməmiş divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan edilməsi ilə bitdi.

Millətçi-separatçı ermənilərin 1988-ci ilin fevralında Dağlıq Qarabağda xalqımıza qarşı hazırladığı avantürist hərəkətin nəticəsi olaraq bu gün bir milyondan yuxarı soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə soydaşlarımız şəhid olmuş, xəsarət almışdır.

"Azərbaycanlıların soyqırımı haqqında" Prezident fərmanında göstərilir ki, Azərbaycanın XIX – XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir.

Fərmanda qeyd olunurdu ki, bu hadisələrin yalnız birinə – 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi, Azərbaycan Respublikası, bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarlarının məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

Bu fərmanla Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini anmaq məqsədi ilə hər il 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.

Ümumiyyətlə, ölkəmizdə azərbaycanlılara qarşı ermənilərin həyata keçirdiyi soyqırımı və deportasiya məsələlərinin ətraflı surətdə, sistemli şəkildə öyrənilməsi və tədqiqi işi, onun xalqımıza və dünya xalqlarına çatdırılması sahəsində iş yalnız ulu öndərimizin bu fərmanlarından sonra sistemli şəkil almış və ilbəil daha da mütəşəkkil surətdə təşkil olunur.

"**Xalq qəzeti**".-2009.-9 may.- N 100.- S. 9.

# HEYDƏR ƏLİYEV İRSİ UĞURLU İSLAHATLARIN LEYTMOTİVİDİR

**Nizami XUDİYEV,**
YAP İdarə Heyətinin üzvü,
filologiya elmləri doktoru, professor

Tarixin müxtəlif mərhələlərinə nəzər salsaq, milyonların içərisində öz uzaqgörənliyi, qətiyyəti və iradəsi ilə seçilən liderlərin və fenomenal şəxsiyyətlərin baş verən hadisələrə təsir imkanları, bu hadisələrin istiqamətini düzgün məcraya yönəltmək bacarığı səhifə-səhifə göz önündə canlanar.

Tale həm də bəzən xalqları, ölkələri sərt sınaqlara çəkir, üzücü müharibələr, sosial kataklizmlər, tənəzzül və böhran minilliklərin nailiyyətlərini təhlükə altına alır, tarixi tərəqqi məhvə sürüklənir. Belə hallarda cəmiyyət bəşəri bir xilaskarın gəlişinə ehtiyac duyur. Həmin şəxsiyyət öz xilaskarlıq missiyasını yerinə yetirdikdən sonra tarixdə əbədi iz qoyur…

Ümummilli lider Heydər Əliyev də Azərbaycan xalqının tarixinə və taleyinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür. Böyük öndər Azərbaycanın tərəqqi və inkişaf yolunu bir dövlət olaraq dahiliklə müəyyənləşdirmiş, milli-mənəvi dəyərlərimizin, müstəqil dövlətçiliyimizin konseptual əsaslarını işləyib hazırlamış, ehkamlaşmış köhnə stereotiplər çərçivəsini dağıdaraq milli ruhun, milli ideologiyanın yüksəlişinə təkan vermişdir.

Azərbaycanın müasir siyasi tarixinin və çağdaş həyatının təxminən son 35 ili ulu öndərimiz Heydər Əliyevlə, onun çoxtərəfli və genişmiqyaslı zəngin əməli-nəzəri və siyasi fəaliyyəti ilə bağlı olmuşdur. Bu dövrdə ulu öndərin rəhbərliyi altında Azərbaycan xalqı tarixi baxımdan bir əsrdən digər əsrə, bir ictimai-siyasi quruluşdan digərinə, asılılıqdan müstəqilliyə, bir ideoloji müstəvidən digər ideoloji mühitə qədəm qoymuşdur. Bu dövrə nəzər salarkən ölkəmizin nə qədər dəyişib inkişaf etdiyinin real mənzərəsini görürsən. Bu illər ərzində Azərbaycan xalqı, sözün həqiqi mənasında, misilsiz inkişaf yolu keçmişdir. Ən başlıcası, demokratik, müstəqil, dünyəvi və hüquqi Azərbaycan dövləti bərqərar olmuşdur. Bu, xalqımızın həm iqtisadi, həm siyasi, həm də mənəvi sərvətidir. Bu tarixi qələbəni lazımınca qiymətləndirmək, qorumaq, möhkəmlətmək və ona dönməz xarakter vermək Azərbaycan milli ideologiyasının mahiyyət və məzmununu təşkil edir.

Danılmaz faktdır ki, müstəqil Azərbaycan dövlətçiliyinin təməlini qoymuş ümummilli liderimiz Heydər Əliyev həm də müstəqillik ideologiyasının banisi və müəllifidir. Ulu öndərimiz Heydər Əliyev mahir dövlətşünas və rəhbər kimi xalqı üçün nə mümkündürsə onu etmiş və həm də özünün davamçısı və siyasi varisi üçün zəngin ideya irsi və böyük mənəvi-ideoloji kapital qoymuşdur. Bu zəngin nəzəri-siyasi irsin tərkibində milli müstəqillik, müasirlik və azərbaycançılıq ideologiyası mühüm yer tutur. Ulu öndərimiz bu haqda demişdir: "… Bütün həyatımı təhlil edəndə görürəm ki, hər halda bir başlıca hadisə var, o da budur ki, mən Azərbaycanın müstəqilliyini təmin edə bilmişəm. Onu daxili çəkişmələr alovunda, dağıntılar və qan içində olmağa qoymamışam".

Ümummilli liderimiz Heydər Əliyevin tarixin ən çətin, məsuliyyətli dövrlərində Azərbaycanın milli mövcudluğunu yaşatmaq kimi ağır yükün altına girən fenomenal şəxsiyyət olduğu danılmazdır. Ulu öndər siyasi və dövlətçilik fəaliyyətinin bütün mərhələlərində vətənə, xalqa, torpağa sonsuz məhəbbət hissi ilə, qurub-yaratmaq arzusu ilə yaşamış, milli ideallara bağlı olmuşdur. Ümummilli lider bütün zəngin və mənalı həyatı boyu həmişə xalqını, vətənini düşünmüş, Azərbaycanın ən çətin məqamlarında onu üzləşdiyi faciələrdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmişdir.

Hələ Azərbaycana ilk rəhbərliyi dövründə böyük təzyiqlərlə, təqiblərlə üzləşməsinə baxmayaraq, Heydər Əliyev dühası heç bir çətinlikdən qorxmayaraq xalqda tarixi keçmişi, dili, mədəniyyəti, milli adət-ənənələri haqqında əsaslı təsəvvürlər formalaşdırmağa nail olmuşdur. Heydər Əliyev fenomeninin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəricisi də məhz azərbaycançılıq ideyasının, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması prinsipləri əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsi, real siyasi faktlara çevrilməsidir.

Tarixi təcrübə ulu öndərimiz Heydər Əliyevin böyük uzaqgörənliklə söylədiyi bu fikirləri bir daha təsdiq etdi ki, "hüquqi cəhətdən müstəqil olmaqla real müstəqillik arasında çox böyük məsafə və olduqca ciddi maneələr var". Elan olunmuş dövlət müstəqilliyini qorumaq, möhkəmləndirmək və ona dönməz, əbədi xarakter vermək üçün olduqca böyük işlər görülməlidir. Təəssüf ki, suverenliyin siyasi-iqtisadi, mənəvi-psixoloji, hərbi-hüquqi, ictimai-siyasi təməli qoyulan ilk illərdə Azərbaycanda hakimiyyət naşı əllərə düşdü, çox böyük imkanlardan istifadə edilmədi. Halbuki İttifaqın dağılması ərəfəsində bir çox mütəxəssislərin apardığı təhlillər göstərirdi ki, keçmiş SSRİ-də cəmi bir neçə respublika tam müstəqil olaraq öz iqtisadiyyatını idarə edə bilər. Bu respublikalardan biri də məhz Azərbaycan idi. Hələ sovet dövründə, ulu öndərimiz Heydər Əliyevin rəhbər

olduğu dövrdə respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaranmışdı. Çox təəssüf ki, dövlət müstəqilliyinin ilk dövrlərində Azərbaycana rəhbərlik edən şəxslər dünyanın çox sürətlə dəyişən siyasi mənzərəsini nəzərə almağa qadir deyildilər. Ulu öndərimiz Heydər Əliyevin sonralar qeyd etdiyi kimi, mövcud geosiyasi vəziyyət yeni strategiyanın formalaşmasını tələb edirdi.

1992-ci ildə hakimiyyətə normal siyasi mübarizə nəticəsində yox, güc yolu ilə gələn AXC-Müsavat təmsilçiləri artıq 1993-cü ilin əvvəllərində xalqın etimadını tamamilə itirdiklərini görürdülər. Sivil dünyada belədir ki, xalqın etibarını itirdiyini və ölkəni idarə edə bilmədiyini görən iqtidar vəziyyətin böhranlı həddə çatmasını gözləmədən istefa verir. Amma təəssüflər olsun ki, həmin şəxslər hakimiyyətdən sivil yolla getmək üçün özlərində siyasi iradə və mədəniyyət tapmaqda da aciz idilər. Yenicə müstəqil olmuş ölkə isə dərin xaos, anarxiya, hakimiyyətsizlik ucbatından parçalanmaq, suverenliyini itirmək üzrə idi.

Nəhayət, 1993-cü ilin iyun hadisələri artıq uzun müddət idi ki, xalqın israrla dövlət idarəçiliyinə çağırdığı ulu öndərimiz Heydər Əliyevin hakimiyyətə dönüşünü sürətləndirdi. Məhz belə bir taleyüklü məqamda xalq unikal siyasi və şəxsi keyfiyyətləri ilə bütün azərbaycanlıların hər zaman qürur mənbəyi olmuş Heydər Əliyevi hakimiyyətə çağıraraq ölkəyə rəhbərliyi ona etibar etdi. 1993-cü il prezident seçkiləri ərəfəsində Milli Məclisin sədri kimi həm də Azərbaycan Prezidentinin səlahiyyətlərini həyata keçirən ulu öndərimiz Heydər Əliyev öz proqramını belə bəyan etdi: “Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan Respublikası demokratiya yolu ilə getməlidir, heç vaxt totalitar sistemə, kommunist rejiminə qayıtmamalıdır. Azərbaycan Respublikasında siyasi plüralizm hökm sürməlidir. İnsan, söz, din, dil azadlığı – bunların hamısı bərqərar edilməlidir. İnsan hüquqlarının qorunması bizim əsas məqsədlərimizdən biri, dövlət orqanlarının, hüquq-mühafizə orqanlarının əsas vəzifələrindən biri olmalıdır. Dövlətin hüquqları da qorunmalıdır. Biz iqtisadiyyatda köklü islahatlar aparıb bazar iqtisadiyyatına keçməliyik. Bizim borcumuz bütün Azərbaycanın simasını dəyişdirməkdir, Azərbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplərlə yaşayan bir dövlətə, cəmiyyətə çevirməkdir, Azərbaycan vətəndaşlarının gələcək həyatını azadlıq, demokratiya yolu ilə təmin etməkdir. Biz bu yolun yolçusuyuq, bu yolla da gedəcəyik. Bu yol xalq yoludur”.

Amma onilliklər boyu formalaşmış bir sistemdən demokratik, bazar iqtisadiyyatına əsaslanan cəmiyyətə keçid yolunda mürəkkəb problemlərlə üzləşəcəyimiz də ulu öndərimiz Heydər Əliyevə məlum idi. Xüsusən 1991-1993-cü illərdə ölkədə davam edən hakimiyyət çəkişmələri, iqtisadi potensialın məqsədyönlü şəkildə dağıdılması vəziyyəti bütün sahələrdə bir qədər də gərginləşdirmişdi. Ancaq irəliyə doğru getmək üçün çətinliklərlə dolu yalnız bir yol var idi və Heydər Əliyev bu yolun bütün məsuliyyətini üzərinə götürdü. 1993-cü il oktyabrın 3-də keçirilən seçkilərdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müstəqil respublikamızın Prezidenti seçildi. Bu, xalqın mütəşəkkilliklə iştirak etdiyi və özünün yeganə namizədinə yekdilliklə səs verdiyi ilk demokratik seçkilər idi.

Xalqın çağırışına əməl edən Böyük azərbaycanlı hakimiyyətə gələn kimi ilk növbədə qanunsuz silahlı dəstələrin fəaliyyətinə son qoydu, separatçıları yerində oturtdu, daxildə asayişi bərpa etdi. Beləliklə, Azərbaycan parçalanıb dağılmaq və müstəqilliyini itirmək təhlükəsindən qurtuldu. Qısa bir müddət ərzində ölkədəki böhran vəziyyəti aradan qaldırıldı, vətəndaş müharibəsinin qarşısı alındı, cəbhədə atəşkəsə nail olundu.

Böyük dövlətlərin geosiyasi mübarizə meydanı sayılan bir respublikada bunlara nail olmaq asan deyildi. Çoxları Azərbaycanda siyasi sabitliyin yaradılacağına inamını itirmişdi. Lakin ümummilli liderimizin simasında hakimiyyətə inam yarandı, cəmiyyət başa düşdü ki, o, taleyin ümidinə buraxılmamışdır, onu bütün çətinliklərdən qurtarıb inamla gələcəyə aparan müdrik rəhbəri vardır. Qarşıda duran ən mühüm vəzifələrdən biri müstəqil Azərbaycan Respublikasının dövrün tələblərinə uyğun dövlət və idarəetmə strukturlarını yaratmaq idi və ulu öndərimiz Heydər Əliyev bu vəzifəni də özünəməxsus ustalıqla həll etdi. Ölkəmizdə hüquqi islahatların həyata keçirilməsi üçün, hər şeydən əvvəl, yeni konsepsiya işlənib hazırlanmalı idi ki, bu konsepsiya azad cəmiyyətin formalaşmasına, demokratik, hüquqi dövlət quruculuğuna, qanunun aliliyinə və bununla da insan hüquqları və azadlıqlarının müdafiəsinə təminat yaratsın.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlişi ilə ölkə həm də xaosdan, dövlətçiliyini itirmək təhlükəsindən xilas oldu. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrində Heydər Əliyev özünün siyasi yenilməzliyi və qətiyyəti ilə Azərbaycan dövlətçiliyini ağır faciələrdən xilas edə bildi. 1995-ci ildə qəbul olunmuş konstitusiya ilə Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi müəyyənləşdirdi. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına geniş imkanlar açdı. Beləliklə, Azərbaycanın beynəlxalq arenada özünəlayiq yer tutması, beynəlxalq münasibətlərin subyektinə çevrilməsi istiqamətində qlobal işlərə start verildi.

Ümummilli liderimiz Heydər Əliyevin dövlətçiliyimiz qarşısındakı ən böyük xidmətlərindən biri də müstəqil Azərbaycanın uğurlu neft strategiyasını hazırlayaraq həyata keçirməsidir. Bu strategiyanın reallaşdırılması nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində öz geostrateji mövqeyini möhkəmləndirə bildi, qlobal məkanda gedən proseslərin istiqamətverici subyektinə çevrilməyə şans qazandı.

Regional layihələrə və beynəlxalq müqavilələrə qoşulan Azərbaycan özünün geopolitik mövqeyinə, təbii ehtiyatlarına, iqtisadi potensialına güvənərək bir çox dövlətlərlə və beynəlxalq qurumlarla əməkdaşlıq zəminində böyük "İpək yolu"nun bərpası, Şərq-Qərb nəqliyyat dəhlizinin yaradılması, Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarına çıxarılması layihələrini ardıcıl həyata keçirir.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkə daxilində möhkəm təməllərə əsaslanan siyasi sabitliyin bərqərar olunması, qanunçuluğun gücləndirilməsi, xarici sərmayələrə dövlət təminatının verilməsi və digər zəruri addımlar isə Azərbaycanın yeni neft strategiyasının işlənib hazırlanmasına və həyata keçirilməsinə zəmin formalaşdırdı. Uzun sürən danışıqlardan sonra 1994-cü ilin 20 sentyabrında Bakıda dünyanın 11 transmilli neft şirkətinin iştirakı ilə çağdaş tariximizə "Əsrin müqaviləsi" adı altında daxil olan neft kontraktının təntənəli imzalanma mərasimi keçirildi. Azərbaycan MDB məkanında Qərbin iri neft şirkətləri ilə böyük miqyasda saziş imzalayan ilk dövlət olmaqla yanaşı, Xəzər dənizində beynəlxalq əməkdaşlığın da bünövrəsini qoydu.

Ümummilli liderimiz Heydər Əliyevin dövlət quruculuğu fəaliyyətinin bütün mərhələləri və anları həm də Azərbaycan milli ideologiyasının yaranması, formalaşması, təbliği və təşviqi anları olmuşdur. O, gördüyü hər bir işi ideoloji cəhətdən əsaslandırmağı, onun fəlsəfi, elmi, siyasi mahiyyətini olduqca yığcam və məntiqi arqumentlərlə şərh etməyi dahiyanə bir ustalıqla bacarırdı.

Milli təhlükəsizliyin təmin edilməsinə nail olmaq, onun daxili və xarici parametrlərini dəqiq müəyyənləşdirmək və onları uzlaşdırmaq Heydər Əliyev təliminin təməl prinsiplərindən biridir. Dünyəvi qloballaşma və modernləşmə prosesinin geniş vüsət aldığı bir dövrdə ümumi bəşəri inkişaf dinamikasından kənarda qalmaq olmazdı. Hindistanın görkəmli dövlət xadimi C. Nehrunun yazdığı kimi: "Bizim idealımız və məqsədimiz tarixi meyillərə zidd gedə bilməz". Dünyadan təcrid olunmaq milli təhlükəsizliyə zəmanət vermir. Odur ki, indiki dövrün qeyri-adiliyi və ondan irəli gələn tələblərlə hesablaşmaq lazım gəlirdi.

Ulu öndərimiz Heydər Əliyev müstəqilliyimizin, Azərbaycan dövlətçiliyinin təhlükə mənbələrini və ona qarşı mübarizə metodlarını müasirləri arasında daha aydın görürdü. Heydər Əliyev bütün fəaliyyəti boyu ideoloji mübarizə cəbhəsində bir anlıq fasiləyə, istirahətə yol vermədən daim döyüş və müdafiə mövqeyində sərvaxt dayanmışdı. Naşı adamlara elə gəlir ki, əgər düşmənin odlu silahları atəş açmırsa, deməli, onlar artıq susmuşdu. Xeyr, ideoloji cəbhənin döyüşçüləri gözə görünməsə də, onların təxribatçı silahı heç vaxt susmur. Əksinə, müstəqilliyimizi möhkəmləndirmək uğrunda xalqımızın hər bir uğuru düşməni daha da quduzlaşdırır, onları yeni-yeni ağlagəlməz vasitələrə əl atmağa sövq edir. Mürtəce dairələrin müstəqil Azərbaycanın nəinki yanacaq resurslarında, hətta onun ən adi nemətlərində belə maraqları var. Odur ki, ulu öndərimiz təkrar-təkrar deyirdi: "Dövlət – dövlətçiliyi qorumalıdır!"

Ulu öndərimiz Heydər Əliyevin bütün fəaliyyətinin başlıca qayəsini məhz bu ideya təşkil edir. Ölkənin hər bir vətəndaşı müstəqilliyimizin qorunub saxlanması və möhkəmləndirilməsi üçün şəxsi məsuliyyət daşıyır. Bunun üçün ilk növbədə hər kəsdən milli həmrəylik tələb olunur. Ulu öndərin tövsiyəsi belə idi: "Azərbaycan xalqının gücü bir yerə toplanmalıdır, hamı bir hədəfə vurmalıdır…". Təsadüfü deyil ki, Azərbaycan dövləti müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olub və ulu öndərimiz haqlı olaraq deyirdi: "Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnərək hər bir insanın inkişafının təmin olunması deməkdir". Təsadüfü deyil ki, Dünya azərbaycanlılarının I qurultayında da ulu öndərimiz Heydər Əliyev ona məxsus müstəqillik, müasirlik və azərbaycançılıq ideologiyasının konturlarını bir daha dəqiqləşdirdi. "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır" fikrini söylədi və açıq bəyan etdi ki, "bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır".

Dahi liderimiz bütün sahələrdə davamlı islahatların əsasını qoymaqla yanaşı insan hüquq və azadlıqlarına da böyük önəm verirdi. Təsadüfi deyil ki, ulu öndərimiz Heydər Əliyevin hakimiyyəti illərində insan hüquqları və azadlıqlarının təmini məqsədilə həyata keçirdiyi hüquqi islahatların ən mühümü məhz yaşamaq hüququnun təmin edilməsi oldu. Ali insanpərvərlik prinsiplərini rəhbər tutan ümummilli liderimizin ilk qərarlarından biri məhz ölüm cəzasının tətbiqinə moratorium qoyulması oldu. Daha sonra ölüm cəzasının tətbiqi məhdudlaşdırıldı və 1998-ci il fevralın 10-da Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm cəzası ləğv edildi. Bu tarixi addım insanpərvərlik, ədalət, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan

rəhbərimizin gələcək nəsillərə misilsiz töhfəsi oldu və bütün dünyaya göstərdi ki, Azərbaycan hüquqi, demokratik dövlət quruculuğu yolunda inamla irəliləyir. Ulu öndərimizin bu münasibətlə 1998-ci il 3 fevral tarixli müraciətində deyilirdi: "Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm".

Ulu öndərimiz Heydər Əliyevin apardığı humanist siyasət nəticəsində 1995-ci ildən etibarən verilmiş əfv və amnistiya aktları ilə minlərlə məhkum azadlıqdan məhrumetmə yerlərindən buraxılaraq öz ailələrinə qovuşmuşdur. Cəmiyyətin inkişafı, insan hüquqları və azadlıqlarının təmin edilməsi üçün tamamilə yeni hüquq və məhkəmə sisteminin qurulması zəruri idi. Buna görə də dahi şəxsiyyətin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası hazırlanmış və 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul edilmişdir.

Konstitusiyada təsbit olunmuş insan və vətəndaş hüquqlarının təmin edilməsi, ölkəmizin Avropa Şurasına inteqrasiyasını sürətləndirmək məqsədilə ulu öndərimiz tərəfindən bir sıra mühüm fərman və sərəncamlar imzalandı, hüquqi islahatların həyata keçirilməsi üçün "Azərbaycan Respublikası Prezidentinin yanında hüquqi islahat komissiyasının yaradılması haqqında" sərəncam verildi. Həmin komissiya "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında" qanunlar hazırladı. Beləliklə, ölkəmizdə məhkəmə-hüquq sistemində köklü islahatların aparılmasına imkan açıldı.

Ulu öndərimizin 2002-ci il 22 iyun tarixli fərmanı ilə Konstitusiyada dəyişikliklər edilməsi üçün referendum təyin olundu. Fərmanda göstərilirdi ki, respublikamızın "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulması, ölkəmizdə məhkəmə islahatlarının həyata keçirilməsi, seçki sisteminin təkmilləşdirilməsi və digər hallarla əlaqədar yeni müddəaların Azərbaycan Respublikası Konstitusiyasında əks etdirilməsi zəruridir. Referendumun nəticələrinə müvafiq olaraq Konstitusiyaya edilən düzəlişlər insan hüquqları və azadlıqlarının qorunmasını daha da gücləndirdi, vətəndaşlara məhkəmələrə, ombudsmana, Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ verdi, ölkənin seçki sistemini daha da təkmilləşdirdi. Sözsüz ki, bütün bunlar ulu öndərimiz Heydər Əliyevin əsasını qoyduğu böyük islahatlardır.

Lakin bu illər ərzində əldə olunan uğurlarla yanaşı, Azərbaycan cəmiyyətini narahat edən əsas məsələlərdən biri də məhz hakimiyyət sükanının yenidən təsadüfi şəxslərin, meydan eyforiyasından ayıla bilməyən diletantların əlinə düşməsi qorxusu olmuşdur. Ötən illərin acı reallıqları yaddaşlarda neqativ assosiasiya doğuraraq cəmiyyətin hər bir üzvünün vətəndaşlıq məsuliyyətini artıran, onun ulu öndərimiz Heydər Əliyev siyasi kursuna səmimi inamını təmin edən başlıca amil kimi çıxış etmişdir. Təhtəlşüurda baş qaldıran bu stereotiplər xalqın mövcud siyasi kursun davamlılığının təmin edilməsi naminə ortaya möhkəm siyasi iradə qoymasını da zərurətə çevirmişdir. Bu belə də olmuş, xalqımızın diqqəti birmənalı olaraq cənab İlham Əliyev fenomeninin üzərində dayanmışdır. Cənab İlham Əliyev cəmiyyətdə tərəqqi və inkişafa xidmət edən proqressiv islahatlar kursunu davam etdirmək əzmində olan lider kimi qəbul olunmuşdur. 2003-cü ildə səhhətində yaranmış problemlər üzündən prezident seçkilərində iştirak edə bilməyən ümummilli liderimiz Heydər Əliyev də cənab İlham Əliyevi özünün siyasi varisi elan edərkən məhz ictimai rəyə, ümumxalq münasibətinə əsaslanmışdır. Ulu öndərimiz Azərbaycan xalqına 2003-cü il 1 oktyabr tarixli müraciətində cənab İlham Əliyevi yeni mərhələdə ölkəyə rəhbərlik etməyə qadir şəxsiyyət kimi gördüyünü bildirmiş, bir çox işlərin onun tərəfindən uğurla başa çatdırılacağına dərin inamını ifadə etmişdir: "Üzümü Sizə-həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Son 5-6 ilin gerçəklikləri əminliklə söyləməyə əsas verir ki, cənab İlham Əliyev xalqın ona bəslədiyi ümidləri doğrultmuş, cəmiyyətin bütün arzularını gerçəkləşdirməyə çalışmaqla, xalqın maraq və mənafelərinə cavab verən çevik, qətiyyətli qərarlar qəbul etmişdir. Böyük uğurlara imza ataraq özünü ciddi siyasətçi kimi təsdiqləmiş, yüksək intellekti, işgüzarlığı, təvazökarlığı, savadı, səmimiliyi, mütərəqqi idarəçilik prinsipləri ilə cəmiyyətdə böyük nüfuz sahibinə çevrilmiş cənab İlham Əliyev dövlət başçısı kimi məsuliyyətli və şərəfli vəzifəni inamla icra etmişdir. Ötən illər ərzindəki fəaliyyəti dövlət başçısının verdiyi bütün vədlərin əməli fəaliyyətə və praqmatizmə söykəndiyini, respublikanın gerçək potensialı ilə uzlaşdığını tamamilə təsdiqləmişdir. İlk növbədə bəlli olmuşdur ki, cənab İlham Əliyev hökumətin qarşısında hansı əsas problemlərin, prioritet vəzifələrin durduğunu aydın təsəvvür edir və onların həlli üçün konkret planlara, proqramlara, mobil, peşəkar,

yüksək iş qabiliyyətli komandaya malikdir. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" – tezisini irəli sürmüş Azərbaycan Prezidenti bu siyasəti hər bir ölkə vətəndaşının həyatında gerçəkliyə çevirmək üçün ciddi siyasi iradə, qətiyyət və əzmkarlıq nümayiş etdirmişdir.

Həm 2003-cü ilin 15 oktyabr, həm də 2008-ci il 15 oktyabr seçkilərinin nəticələri təsdiqlədi ki, Azərbaycan xalqı ümummilli liderin siyasi kursuna sadiqdir və bu kursun dövlətçiliyin təhlükəsiz şəraitdə inkişafına imkan verən yeganə strateji seçim olduğunu bütün varlığı ilə qəbul edir. Hər iki seçkidə Heydər Əliyev siyasi kursunun layiqli davamçısı İlham Əliyevin inamlı qələbəsi göstərdi ki, Azərbaycan cəmiyyəti ölkədə həyata keçirilən siyasətə alternativ görmür. Hələ 2003-cü ildə "Mən bütün azərbaycanlıların Prezidenti olacağam" – deyən cənab İlham Əliyev qısa müddətdə ona bəslənilən etimadı tam doğrultmuş, hər bir vətəndaşın marağına cavab verən ədalətli qərarlar qəbul etməyə qadir olduğunu göstərmişdir. Güclü, mobil və yüksək iş qabiliyyətli komanda yaratmağa nail olan dövlət başçısı sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində, ilk növbədə milli iqtisadiyyatda infrastruktur dəyişikliklərinə nail olmağın, kəmiyyət dəyişikliklərini keyfiyyət müstəvisinə keçirməyin zəruriliyini ortaya qoymuşdur. Ölkə rəhbəri imzaladığı fərman və sərəncamlarla, qəbul etdiyi qərarlarla ölkəmizin dinamik yüksəlişini təmin etmişdir.

Bu gün Azərbaycanın sosial-iqtisadi sahələrdə qazandığı uğurlar dövlət başçısının ötən müddətdə qəbul etdiyi fundamental qərarların, dövlət proqramlarının müstəsna əhəmiyyətini aşkara çıxarır. Ölkə rəhbəri hər addımında milli maraq və mənafeləri prioritet hesab edir. Heç də təsadüfi deyil ki, qazanılan nailiyyətlər nüfuzlu beynəlxalq maliyyə qurumları tərəfindən də təsdiq edilir. Bunun nəticəsidir ki, "Moodys" Beynəlxalq Reytinq Agentliyi tərəfindən Azərbaycanın reytinqinin bir pillə artaraq Bal səviyyəsinə çatdığı, yəni artıq investisiya kateqoriyasının astanasında olduğu bəyan edilmişdir. Sözsüz ki, bütün bunlar ulu öndərin ideyalarının, arzu və istəklərinin tamamilə reallaşacağından, Azərbaycanın qüdrətli bir dövlət kimi beynəlxalq arenada özünə möhkəm yer tutacağından soraq verir. Cənab İlham Əliyevin Azərbaycan Prezidenti kimi fəaliyyətinin təhlili həm də göstərir ki, bu müddətdə istiqamətləri ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş bütün konsepsiyalar dövlətçilik və milli maraqların təmini üçün uğurla davam etdirilmiş, zəruri hallarda məhz onun təşəbbüsü ilə dövrün tələblərinə uyğun olaraq keyfiyyət dəyişikliklərini özündə əxz etmişdir.

Hələ 2003-cü ilin prezident seçkiləri ərəfəsində Heydər Əliyev siyasi kursunu davam etdirəcəyini bəyan edən cənab İlham Əliyev çox qısa müddətdə bütün sahələrin inkişafı istiqamətində böyük uğurlara imza atmaqla ulu öndərin siyasi varisi, onun güclü dövlətçilik, sosial-iqtisadi inkişaf kimi missiyalarının, azərbaycançılıq ideologiyasının layiqli daşıyıcısı olduğunu təsdiq edib. Bütün bunlarla yanaşı bir sıra keyfiyyətlər – qətiyyətlilik, prinsipiallıq, zamanında sözünü demək, radikal tədbirlər görmək bacarığı dövlətin inkişafının, müxtəlif sferalarda qazanılan uğurları şərtləndirən əsas amillərdir. Heydər Əliyev kimi zəngin dövlətçilik və idarəçilik təcrübəsi olan siyasət dühasından bu cür keyfiyyətləri mənimsəyən Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi Azərbaycan dövlətçiliyinin daha da qüdrətlənməsinin, ölkənin inkişafının leytmotivini təşkil edir. Bu baxımdan şərəfli bir missiyanı üzərinə götürən cənab İlham Əliyev özünün yüksək keyfiyyətləri, dövlət idarəçiliyi, bacarığı sayəsində bu müddət ərzində siyasi varisliyə alternativsiz lider olduğunu təsdiqləyib.

Heydər Əliyev siyasi xəttinin davam etdirilməsinin parlaq nəticələri göz qabağındadır. Son illərin bütün siyasi və sosial-iqtisadi yekunları təsdiqləyir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin xalqa verdiyi vədlər sırf əməli fəaliyyətə söykənərək real həyata vəsiqə almışdır. Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyətinin diqqəti çəkən əsas tərəflərindən biri və başlıcası ulu öndərimiz Heydər Əliyev tərəfindən yaradılmış ictimai-siyasi sabitliyin qorunub saxlanması və möhkəmləndirilməsidir. Təcrübədən göründüyü kimi, ictimai-siyasi sabitlik hər bir ölkənin inkişafının başlıca şərtidir. Azərbaycanın sosial-iqtisadi sferada qazandığı nailiyyətlər ictimai-siyasi sabitliyin möhkəm və əbədi olduğunu təsdiq edir.

Demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu istiqamətində əsas prinsipləri təsbit edən Azərbaycan eyni zamanda iqtisadiyyatın inkişafında da misli görünməmiş uğurlara imza atmaqdadır. Cənab İlham Əliyevin fəaliyyəti dövründə Azərbaycanda iqtisadi və sosial sahələrdə köklü islahatların davam etdirilməsi, dövlət proqramlarının icrası, Azərbaycanın iqtisadi cəhətdən qüdrətini şərtləndirən iri enerji layihələrinin – Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin işə düşməsi daha böyük uğurlardan xəbər verir. Ümumi daxili məhsulun 35 faizə qədər artması, 2003-cü ildə 1,5 milyard dollar olan Dövlət büdcəsinin artıq 16 milyard dolları ötməsi bu müddətdə Azərbaycanın dinamik sosial-iqtisadi inkişafının, qarşıya qoyulmuş məqsədlərə çatmasının göstəricisidir.

Bu illər ərzində həm də Azərbaycanın xarici siyasət kursu da milli maraqlar çərçivəsində bir sıra keyfiyyət dəyişiklikləri edilməklə uğurla həyata keçirilib. Dövlətimizin başçısının xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, özünün nümayiş etdirdiyi peşəkar siyasi məharət, milli məqsədlər naminə dünyanın ən nüfuzlu tribunalarından diplomatik bacarıqla istifadəsi Azərbaycan dövlətçiliyi və nüfuzu baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Bu müddətdə Azərbaycan qonşu və uzaq dövlətlərlə mehriban

dostluq və beynəlxalq hüquq normalarından irəli gələn şərtlər çərçivəsində münasibətlərini xeyli gücləndirib. Avratlantik məkana inteqrasiya istiqamətində mühüm nailiyyətlər qazanan, Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti proqramında uğurla iştirak edən ölkəmizin Şərq dövlətləri ilə də münasibətlərində yeni-yeni səhifələr açılıb. Əvvəllər münasibətlərimiz ümumiyyətlə mövcud olmayan və ya sadəcə diplomatik əməkdaşlığımız olan ölkələrlə hərtərəfli əlaqələr qurulmuş, münasibətlər daha da dərinləşdirilmişdir.

Beləliklə, əsası ulu öndərimiz, əbədiyaşar liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycanda siyasi və iqtisadi islahatların keçirilməsi hesabına qazanılan böyük uğurlar parlaq və fərəhlidir. Biz bu gün fəxr edə bilərik ki, biz ümummilli liderimiz Heydər Əliyevin qurduğu müstəqil, demokratik və azad bir ölkənin vətəndaşlarıyıq!!!

**“Xalq qəzeti“.-**2009.-14 may.- N 102.- S. 5.

## AZƏRBAYCANI DAVAMLI İNKİŞAF YOLUNA ÇIXARAN LİDER

**İRADƏ HÜSEYNOVA**
təhsil nazirinin müavini, tarix elmləri doktorıı, professor,
Azərbaycan Respublikasının əməkdar müəllimi

***Akademik Ramiz Mehdiyev «Azərbaycan 2003-2008: reallığa çevrilən qeyri-adi zaman» əsərində respublikamızın qısa müddətdə əldə etdiyi böyük nailiyyətləri Prezident İlham Əliyevin liderlik keyfiyyətləri ilə izah edir***

*Tarixin gedişinə təsir göstərən böyük siyasi liderlər irəli sürdükləri mütərəqqi ideyalarla xalqı öz ətrafında birləşdirməyə, hər bir addımda ictimai inam qazanmağa çalışmış, məhz bunun da sayəsində böyük uğurlara imza atmışlar. Fəaliyyətində daim ictimai mənafeni əsas götürən, xalqın dəstəyinə arxalanan siyasi lider konkret siyasi mərhələdə xalqın sabit inkişaf yolunu düzgün müəyyənləşdirmək, milli maraqları qorumaq əzmi ilə seçilir. Siyasətdə ictimai inam qazanmaq məramı demokratik dəyərlərin ön plana çıxdığı hazırkı «sürət əsri»ndə də qətiyyən aktuallığım itirmir. Hakimiyyəti millətə layiqli xidmət vasitəsi sayan və bunu əməli fəaliyyəti ilə sübuta yetirən liderlər milyonlarla insanın iradəsi əsasında dövlətə rəhbərlik şansını qazanırlar.*

Tarixin sərt sınaqlarından üzüağ çıxan Azərbaycan xalqı da taleyini hər zaman qəlbən inandığı, etimad göstərdiyi siyasi liderlə bağlamışdır. Müstəqil Azərbaycan yeni minilliyin başlancığında ümummilli lider, dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin ideyalarının layiqli davamçısı – cənab İlham Əliyevin rəhbərliyi altında uğurlu gələcəyə doğru inamla irəliləyir, bu yolda qarşılaşdığı müxtəlif maneələrə, çətinliklərə mətinliklə sinə gərir. Azərbaycanda demokratiyanın təntənəsi kimi tarixliləşən 2008-ci ilin 15 oktyabr seçkiləri də mahiyyət etibarilə xalqın cənab İlham Əliyevə dərin inam və etimadının əyani təsdiqinə çevrilmiş, ölkə vətəndaşları respublikada uğurla həyata keçirilən islahatlar kursunun davam etdirilməsi naminə ciddi siyasi iradə və qətiyyət nümayiş etdirmişlər.

Prezident seçkiləri bir qayda olaraq konkret zaman intervalında reallaşdırılan siyasətin ictimai rəy tərəfindən adekvat dəyərləndirilməsi prosesi kimi də xarakterizə edilir. Seçkilər ərəfəsində hakimiyyət xalqın və dövlətin mənafeyi naminə həyata keçirdiyi kompleks tədbirlər barədə hesabat verərək seçicilərin səsini qazanmağa çalışır. Bu mənada, cənab İlham Əliyevin son seçkilərdəki möhtəşəm zəfəri ilk növbədə son beş ildə ölkənin keçdiyi inkişaf yoluna verilən obyektiv ictimai qiymətdir. Dövlət başçısı ötən müddətdə konseptual əsasları ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş islahatları uğurla davam etdirmiş və yeni çalarlarla zənginləşdirmişdir. *«Əsl siyasət konkret, real iş görməkdən ibarətdir»* – deyən dövlət başçısının ötən 5 ildə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar onun daim xalqın mənafeyindən çıxış etdiyini, habelə verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev zaman baxımından o qədər də böyük olmayan bir müddətdə cəmiyyətin bütün gözləntilərini gerçəkləşdirməyə çalışmaqla, hər bir vətəndaşın marağına cavab verən, cəmiyyət həyatının müxtəlif sahələrində uğurlu nəticələrə yol açan çevik, qətiyyətli və düzgün qərarlar qəbul etmişdir. Dövlət başçısının idarəçilik keyfiyyətlərindən ən mühümü isə, şübhəsiz, uzun illər boyu zərrə-zərrə formalaşaraq sabitləşmiş milli dövlətçilik ənənələrinə sadiqlikdir. Cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində son illər əldə etdiyi-miz uğurlar da məhz bu amilə əsaslanır. Siyasi illüziyalardan, populizmdən uzaq olması, problemlərə rasional mövqedən və real situasiyadan yanaşması, praqmatizmi və yüksək idarəçilik keyfiyyətləri cənab İlham Əliyevin yetkin və peşəkar siyasətçi portretini formalaşdırır. Bütün bu keyfiyyətləri dövlət başçısının malik olduğu yüksək qətiyyət, intellekt, enerji, potensial, işgüzarlıq, novatorluq və birləşdiricilik məziyyətləri tamamlayır.

Mübaliğəsiz demək olar ki, mövcud siyasi kursun ictimaiyyət tərəfindən birmənalı dəstəklənməsini təmin edən ən başlıca amil məhz son beş ildə müstəqil Azərbaycanın əldə etdiyi inanılmaz sosial-iqtisadi nailiyyətlərdir. Ötən müddətdə ölkənin davamlı və sabit inkişafı baxımından vacib amil olan ictimai-siyasi sabitlik qorunub saxlanılmış, respublikamız iqtisadi inkişaf tempinə görə dünyanın lider dövlətləri sırasına yüksəlmiş, sosial problemlərin aradan qaldırılması istiqamətində ardıcıl addımlar atılmış, Azərbaycan Avropa geosiyasi arealında həyata keçirilən qlobal layihələrin təminatçısına çevrilmişdir. Bu gün ikinci elə bir dövlət tapmaq çətindir ki, son 5 ildə ümumi daxili məhsulun artım tempinə görə dünyada lider mövqeyini qoruyub saxlasın, qısa müddətdə dövlət büdcəsinin vəsaitlərini 10 dəfədən çox artıra bilsin. Azərbaycan isə bunlarla yanaşı, həm də regionların sosial-iqtisadi inkişafına xidmət edən mühüm dövlət proqramlarını, fərman və sərəncamları uğurla icra etmiş, həyata keçirilən sosial infrastruktur layihələri nəticəsində bölgələrin siması

dəyişmiş, sahibkarlığın inkişafı, yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, yeni iş yerlərinin açılması naminə sistemli addımlar atılmışdır.

Cəmiyyət həyatındakı fundamental dəyişikliklər hüquqi-siyasi islahatların dərinləşdirilməsini, inkişaf etmiş Qərb dövlətlərinin mütərəqqi demokratik ənənələrinin mənimsənilməsinə xidmət edən fəal siyasətin həyata keçirilməsini aktual məsələ kimi önə çıxarır. Hər bir cəmiyyətdə demokratik dəyişikliklərin başlıca mahiyyəti insanı önə, diqqət mərkəzinə çəkməkdir – idarəetmədə demokratikləşmə prosesləri islahatlara yönəldilirsə, islahatlar cəmiyyətdəki hər bir insanın taleyinə təsir göstərir. Söhbət şəxsiyyət və hakimiyyətin qarşılıqlı əlaqələrinin prinsipcə yeni əsaslarının yaranmasından, şəxsiyyət və dövlətin qarşılıqlı münasibətlərində yeni üslubun formalaşmasından gedir. Bu baxımdan son illərdə Azərbaycanda demokratik transformasiya tamamilə yeni məzmun və forma almışdır. Uğurla gerçəkləşdirilən iqtisadi strategiya nəticəsində vətəndaşların maddi rifah halının yüksəlməsi demokratikləşmə proseslərinin cəmiyyətdə adekvat dərkinə əlverişli zəmin yaradır. Aktiv inkişaf fazasına daxil olmuş respublikamızda demokratik dəyərlərin inkişafı və total şüurda mənimsənilməsi üçün son illər əlverişli iqtisadi, siyasi, mənəvi mühit formalaşır. Bu prosesin qayəsində respublikamızda liberal dəyərlərin, insan və vətəndaş hüquq və azadlıqlarının prioritetinə əsaslanan, cəmiyyətə təkamül yolu ilə əxz edilən suveren demokratiya modelinin formalaşdırılması məqsədi dayanır.

Respublikamız Qərb dövlətlərinin bir neçə yüzillikdə keçdiyi kapitalist inkişaf yolunu çox qısa müddətdə qət etmiş, siyasi mühitin liberallaşması, demokratikləşmə sahəsində həlledici uğurlar qazanmış, dünyaya inteqrasiya sahəsində inamlı addımlar atmışdır. 2003-cü ildə cənab İlham Əliyevin xalqın iradəsi ilə dövlət başçısı seçilməsi isə respublikamızdakı demokratik transformasiya proseslərinə yeni nəfəs vermiş, ölkənin iqtisadi resurslarının bu yöndə səfərbər olunmasına şərait yaratmışdır. Sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində qarşıda duran başlıca vəzifələrdən biri də dünyadakı qlobal proseslərə nəzərən Azərbaycanın demokratik inkişaf strategiyasının nəzəri əsaslarını müəyyənləşdirmək, fərqli yanaşmalar ortaya qoymaqdır. Ümummilli lider Heydər Əliyevin qurub yaratdığı dövlətin qət etdiyi demokratik yola nəzər salınması, Prezident İlham Əliyevin rəhbərliyi ilə yaradılan çağdaş tariximizin gələcək nəsillər üçün obyektiv yazıya alınması elmi ictimaiyyətin üzərinə böyük məsuliyyət qoyur.

Son illər qloballaşma, demokratik inkişaf və modernləşmə məsələləri ilə bağlı cəmiyyətə təqdim olunan elmi tədqiqatlar sırasında Prezidentin İcra Aparatının rəhbəri, akademik Ramiz Mehdiyevin əsərləri elmi sanbalı, politoloji-fəlsəfı məzmunu, aktuallığı və ensiklopedik səciyyəyə malik olması ilə fərqlənir. Respublikamızda demokratik inkişaf proseslərinin politoloji müşayiətində akademik Ramiz Mehdiyevin tədqiqatları xüsusi rol oynayır və bu baxımdan onun qələmə aldığı əsərlər olduqca əhəmiyyətlidir. Bu əsərlərin elmi-fəlsəfi dəyəri həm də onların cəmiyyətdə bir qayda olaraq böyük maraqla qarşılanması, yeni polemikalara, diskussiyalara yol açması ilə ölçülür. Bir müddət əvvəl «Azərbaycan» qəzetində 11 noyabr 2008-ci il tarixli nömrəsində işıq üzü görmüş «Azərbaycan 2003-2008: reallığa çevrilən qeyri-adi zaman» əsərində isə konkret zaman intervalında Azərbaycanın ictimai-siyasi həyatında baş verən proseslərin dərin elmi-fəlsəfi təhlili ilə yanaşı, sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində qarşıda duran mühüm vəzifələrdən, əldə olunan uğurlardan söz açılır, 2003-2008 – ci illərin konseptual siyasi-iqtisadi mənzərəsi verilir.

XXI əsrdə bəşəriyyəti ağuşuna almış qloballaşma dalğası xüsusən də müstəqilliyini yenicə qazanmış dövlətlər qarşısında zamanla ayaqlaşmaq, onun tələblərinə uyğun siyasət yeritmək, müasir dünya siyasətinin reallıqlarını düzgün dəyərləndirmək kimi mühüm vəzifələr müəyyənləşdirmişdir. Akademik Ramiz Mehdiyev yeni əsərində «sürət», «dinamika», «temp» anlayışlarının yeni yüzilliyin əsas simvoluna çevrildiyini diqqətə çəkərkən məhz bu reallığa istinad etmiş, çevik siyasət yetirməyən, müasir dünyanın inkişaf tendensiyalarını nəzərə almayan dövlətlərin ciddi uğurlar qazanmasının qeyri-mümkünlüyünü vurğulamışdır. Amerikalı nəzəriyyəçi T.Fridmandan iqtibas gətirən akademik onun bu fikrini də bölüşür ki, əgər ötən əsrdə böyük dövlətlər kiçikləri udurdularsa, XXI əsrdə «sürətli» dövlətlər «ləng», «astagəl» dövlətləri öz təsiri altına salacaqlar.

Akademik bununla hazırda dünya nizamında yeni geosiyasi reallıqların meydana çıxdığına, çevik xarici və daxili siyasət yeridən kiçik dövlətlərin beynəlxalq münasibətlər sistemindəki mövqeyinin əsaslı dərəcədə möhkəmləndiyinə işarə edir. Bu qiymətləndirmə fonunda müəllif eyni zamanda Azərbaycanın son beş ildə keçdiyi inkişaf yoluna nəzər salaraq bir sıra maraqlı mülahizələrini oxucularla bölüşür. *«Ötən beş ilin başlıca yekununun statistik mənzərədən başqa, simvolik mənası da vardır. Qarşıya qoyulan hər bir məqsəd, hər bir söz, milli layihə, dövlət proqramları kimi praktik fəaliyyətdə həyata keçirilmiş, həm də son dərəcə qısa müddətdə gerçəkliyə çevrilmişdir. Zamanın «sürət» simvolu siyasi liderin həssas fəhmi sayəsində fəth edilmiş, sürət tempi milli məqsədlərə tabe olunmuşdur. Bu, Azərbaycanın XXI yüzillikdə «gecikən ölkələr» qismində tarixi proseslərin autsayderi deyil, dəyişikliklərin dinamik lideri olan ölkə imici qazanmasının nəticəsi kimi ötən beş ilin dövlətçilik tarixində həmişəlik qalacağına dəlalət edir. İnkişaf tempi uğurlarımızın səbəbidir, onun nəticəsi*

*isə növbəti mərhələyə daha yüksək sürətlə, üstün start imkanları ilə qədəm qoymaq şansıdır»* - deyən akademik Ramiz Mehdiyev Azərbaycanın yeni dünya nizamının reallıqlarına uyğun çevik və rasional siyasət yeritdiyini, maraq və mənafeyini etibarlı şəkildə təmin etdiyini, dünya miqyasında cərəyan edən proseslərə əsaslı təsir imkanları qazandığını vurğulayır.

Əsərdə Qərb dövlətlərinin onilliklər boyu keçdiyi inkişaf yolunu qısa müddətdə adlayan Azərbaycanın həlledici uğurlarının son beş ilə təsadüf etdiyi vurğulanmaqla yanaşı, 2003-cü ildə cənab İlham Əliyevin dövlət başçısı seçilməsini zəruri edən iqtisadi-siyasi amillərdən söz açılır. Eyni zamanda bu tarixi seçimin Azərbaycanın demokratik inkişafında rolu, ölkənin siyasi sisteminin müasirləşməsində əhəmiyyəti, sosial-iqtisadi və mədəni-intellektual sferada aparılan islahatlara yeni ruh və müasirlik çalarları gətirməsi barədə fikirlər konkret arqumentlərlə əsaslandırılır. «Beş il əvvəl xalq öz seçimi ilə cənab İlham Əliyevə etimad göstərməsəydi, ölkənin tarixi hansı axarla gedərdi?» sualına müraciət edən görkəmli akademik özünəməxsus siyasi peşəkarlıqla bu suala cavab tapmağa çalışır.

Əsərdə Azərbaycan Prezidenti İlham Əliyevin ilk gündən dövlətçiliyin, ictimai-siyasi sabitliyin təmini istiqamətində həyata keçirdiyi prinsipial addımlardan da söz açılır, dövlət başçısının ekstremal situasiyalara hazır qətiyyətli lider kimi olduğu da vurğulanır. Həmin dövrdə cərəyan edən prosesləri dövlətçilik maraqları kontekstindən şərh edən müəllif haqlı olaraq bu qənaətə gəlir ki, 2003-cü ilin 15 oktyabr seçkiləri Azərbaycanın hərtərəfli inkişafında yeni mərhələsinin əsasını qoymuşdur. Xalqın iradəsi ilə hakimiyyətə yüksələn İlham Əliyev məğlubiyyətilə heç cür barışmaq istəməyən aqressiv müxalifətin ölkədə kütləvi itaətsizlik və xaos mühiti formalaşdırmaq, kütləvi kataklizmlər törətmək cəhdlərinin qarşısını qətiyyətlə almış, həmin qüvvələrə hakimiyyətə qeyri-konstitusion yolla gəlməyin qeyri-mümkünlüyünü bir daha sübuta yetirmişdir.

Akademik Ramiz Mehdiyev əsərdə demokratik cəmiyyətin yaradılmasında təkamül yoluna üstünlük verilməsi ideyasını da əvvəldən-axıradək müdafiə edir. Həqiqətən də son illər bir sıra MDB dövlətlərində yaşanan «məxməri inqilab» ssenariləri təsdiqləmişdir ki, demokratik proseslərin inqilabi yolla sürətləndirilməsi, demokratik dəyərlərin kor-koranə transferi mümkün deyildir. Hər bir ölkənin daxilində mütləq demokratik proseslərin getməsinə real iqtisadi-siyasi, ideoloji zəmin yaradılmalı, tətbiq olunan yeniliklər ictimai şüur tərəfindən tam şəkildə mənimsənilməlidir.

Azərbaycan reallığında isə müəyyən kənar dairələrin xalqın iradəsi əleyhinə hansısa addım atmasının qeyri-mümkünlüyü konkret reallıqlar fonunda tam təsdiqini tapmışdır. Xalqın inamına söykənən cənab İlham Əliyev 2003-cü ilin prezident, 2005-ci ilin parlament seçkiləri zamanı bəzi destruktiv qüvvələrin ölkəni yenidən 90-cı illərin əvvəlindəki xaos və anarxiyaya, vətəndaş qarşıdurmasına sürükləmək cəhdlərini puça çıxarmış, milli maraq, mənafe naminə böyük siyasi qətiyyət nümayiş etdirmişdir. Xüsusən də parlament seçkiləri ərəfəsində dövlətçiliyə yönəlmiş cinayətkar qəsdlərin zərərsizləşdirilməsi naminə atılan cəsarətli addımlar xalq-iqtidar birliyinin növbəti təzahürünə çevrilməklə, ifrat radikalizm mərəzindən qurtula bilməyən qaragüruhun siyasi iflası ilə nəticələnmişdir.

Bu nöqteyi-nəzərdən Azərbaycanda dünya ölkələrinin heç birinə bənzəməyən inkişaf modelinin formalaşması faktı artıq tam təsdiqini tapmışdır. Demokratik quruculuq yolu ilə gedən respublikamız həssas bir bölgədə yerləşsə də, onun həm iqtisadi, həm siyasi, həm də digər sahələrdə özünəməxsus tərəqqi modeli formalaşmaqdadır. Bir sıra postsovet dövlətlərində analoji tranzit «məxməri inqilab» ssenarilərinə əsaslandığı halda, Azərbaycanda demokratik inkişaf suverenlik və özünütəminetmə prinsiplərinə söykənir. Bu elmi-fəlsəfi yanaşma tərzi öz iddiasını dünyaya qəbul etdirməyə çalışan, milli məxsusluğa arxa çevirib dünyaya yeni mövcudluq üsulu vermək istəyən ayrı-ayrı siyasi mərkəzlərə, alimlərə, fikir sahiblərinə ən tutarlı cavabdır.

Siyasətdə inteqrativ funksiya cəmiyyətin bütövlüyü və sabitliyinin qorunmasına, vətəndaş sülhü və həmrəyliyinin möhkəmləndirilməsinə istiqamətlənir. Mövcud siyasi kursun inteqrativ birləşdirici mahiyyəti də ilk növbədə onun hər bir vətəndaşın maraqlarına hesablanmasından irəli gəlir. Heydər Əliyev siyasi kursu son 15 ildə milli birlik və həmrəyliyə ciddi zəmin yaratmış, azərbaycançılıq ideologiyası dərin məzmun yükü ilə cəmiyyətin mənəvi bütövlüyündə və monolitliyində aparıcı amilə çevrilişdir. Son beş ildə bu siyasət uğurla davam etdirilmiş, ilk gündən cəmiyyətin bütün siyasi qüvvələrinin, sosial qruplarının, dini-etnik konfessiyalarının birliyinin təmin edilməsi istiqamətində ardıcıl siyasət yürüdülmüşdür. Nəticədə cəmiyyət üçün təhlükəli sayıla biləcək hər cür radikal meyllər aradan qalxmış, seçkilərin obyektiv nəticələrini əsassız yerə qəbul etmək istəməyən nihilist və inkarçı qüvvələr sivil dialoqa, konstruktiv əməkdaşlığa dəvət olunmuşlar. Ölkədə həyata keçirilən liberal ruhlu daxili siyasət eyni zamanda əks siyasi qüvvələr arasında əvvəllər mövcud olmuş xoşagəlməz münasibətlərin, psixoloji barışmazlığın aradan qaldırılmasına xidmət etmişdir.

Akademik Ramiz Mehdiyev «Azərbaycan 2003-2008: reallığa çevrilən qeyri-adi zaman» əsərində bu həssas məqamlara toxunaraq 2003-cü ilin 15 oktyabr seçkilərindən sonra ölkədə yeni siyasi münasibətlər sisteminin və siyasi mədəniyyətin formalaşdığını qeyd edir. Əsərdə həmçinin vurğulanır ki, müasir dövrdə

siyasi hakimiyyətin demokratik yolla əvəzlənməsində, ictimai sabitliyin və sistemli varisliyin təmin olunmasında siyasi mədəniyyət amili bütün dünyada qəbul edilmiş zəruri siyasi texnologiyadır. *«2003-cu ilin prezident seçkiləri siyasi sistemin demokratik transformasiyasında siyasi mədəniyyəti sarsılmaz ənənəyə, Azərbaycanda demokratik dövlət quruculuğunun siyasi-intellektual fenomeni səviyyəsinə yüksəltdi. Ölkəmizdə davamlı və işlək siyasi texnologiyanın gerçəkləşməsinin başlanğıcını qoydu. Onun yeni siyasətinin böyük uğurlarından biri olan sivil müxalifətə demokratik Azərbaycan cəmiyyətində " tələbat" böhranının deyil, konstruktiv, dövlətçilik mənafeyindən çıxış edən siyasi opponentlərin olmamasını və onların " təkliflərinin" böhranının mövcudluğunu aşkar-aydın sübut etməsi oldu. Radikal qarşıdurma, savaş məntiqi, əsassız müqavimət görüntüləri, bloklaşma təfəkkürü kimi inkar vasitələrinə alternativ olan yeni rasional siyasi baxış Prezident İlham Əliyevin milli siyasi düşüncəyə və təcrübəyə gətirdiyi özəl yenilikdir»* – deyən akademik Ramiz Mehdiyev həmçinin vurğulayır ki, siyasi mədəniyyət Azərbaycanda səmərəli dövlətçilik mərhələsinin nailiyyətlərini təhlil etmək baxımından çox önəmli, empirik təhlillərə imkan yaradan anlayışdır. Filosofun fikrincə, müasir dövrdə «vətəndaş mədəniyyəti» nin sinonimi kimi işlədilsə də, siyasi mədəniyyət özündə hər bir dövlətin yüksəlişində siyasi imkanların bütün spektrini, səfərbərliyini, siyasi davranışın və münasibətlərin hakim stereotiplərini ehtiva edir. Ənənəvi, davamlı olaraq təkmilləşən siyasi mədəniyyət dövlətin sabitliyini təmin edən ən ümdə şərtlərdəndir.

Əsərdə həmçinin vurğulanır ki, hər bir ölkədə seçkilərin gedişi ərazi quruluşu, idarəetmə formaları və ən başlıcası, siyasi mədəniyyət və ənənələrdən asılı olaraq fərqlənir. Siyasi stratifikasiyanın tərkibindən asılı olaraq, təşviqat və təbliğat sivil və ya qəddar formalarda həyata keçirilir. Yalnız zaman duyumu, vətəndaşla dialoqa yönəmli siyasi liderin şəxsi nümunəsi və iradəsi hər hansı formanın seçimini, sivil istiqamətə yönəlməsini təmin edə bilər. Bu mənada, dünya birliyi 2008-ci ilin seçkilərinə nəzərən Azərbaycanda qeyri-korrekt texnologiyaların, falş-piarların tətbiqi mərhələsinin geridə qaldığını etiraf etmiş, xalqımız siyasi yetkinliyə doğru ciddi nailiyyətlər qazanmışdır. Əsərdə son prezident seçkiləri eyni zamanda müstəqil Azərbaycanın tarixində yeni dövrün başlanğıcı kimi dəyərləndirilir. Əldə olunan nailiyyətlər gələcək inkişaf perspektivlərini, yeni siyasi məkanı və mədəniyyəti, siyasi və iqtisadi strukturu təkmilləşdirməyi, cəmiyyətin növbəti illər üçün inkişaf istiqamətlərinin əsas cizgilərini nəzərdən keçirməyə, vətəndaşların azad və firavan ölkədə, ədalətli cəmiyyətdə yaşayacaqlarına inamının artmasına imkan verir.

Əsərin ideya məzmununda yer almış elmi-politoloji qənaətlərdən biri də budur ki, müstəqil Azərbaycanın bir çox aparıcı dünya ölkələrinin onilliklər boyu keçdiyi təkamül və inkişaf mərhələlərini qısa zaman kəsiyində qət edərək bütövlükdə Cənubi Qafqaz regionunda mühüm rolu və mövqeyi ilə seçilən lokomotiv dövlətə çevrilməsi heç də yalnız respublikanın zəngin təbii sərvətləri, intellektual resursları ilə şərtlənmir. Analoji tərəqqi yolu keçmiş əksər ölkələrdə olduğu kimi, Azərbaycanda da bu zəngin maddi-intellektual potensialın xalqın mənafeyinə uyğun realizə edilməsi, hər bir fərdin maraq və mənafeyinə cavab verən milli siyasət strategiyasının həyata keçirilməsi lider amili ilə bilavasitə bağlıdır. Bu mənada, son beş ildə Azərbaycanın cənab İlham Əliyevin rəhbərliyi altında qazandığı uğurların inanılmaz miqyası həm də respublikanın milli inkişaf modeli ilə şərtlənir. Akademik bütün bunlara nəzərən yazır ki, inkişafın Azərbaycan modeli inkişaf etmiş bir sıra dövlətlərdə də ciddi maraqla qarşılanır: **«Bütövlükdə, ötən beş ilin yekunları Prezidentin son nitqlərində, beynəlxalq miqyasda etirafını tapan statistik göstəricilərdə bariz əks olunmuşdur. Bu illər dünya birliyi tərəfindən qəbul edilən yeni, suveren inkişaf modelinə doğru təkamül dövrü, Azərbaycan torpağının liderlər yetişdirmək potensialının davamlı ənənəyə çevrilməsinin sübutu olmuşdur. Həmin illər tariximizin ən yeni mərhələsində İlham Əliyev dövrünün başlanğıcı və uğurlu nəticələrin həkk olunduğu illər kimi yadda qalmışdır. Nə «qərbləşmə», nə də Şərq və Asiya modelinin təqlidi olmayan, yalnız Azərbaycana xas olan və onun «dövlət identikliyi» kimi milli köklərdən qaynaqlanan nadir xüsusiyyətini ifadə edən, beynəlxalq aləmdə təkzibedilməz amilə çevrilən milli inkişaf modelinin formalaşdığı illər olmuşdur».**

Əsərdə müasir qloballaşma dövründə milli-mənəvi dəyərlərin, xalqın milli özünəməxsusluğunun qorunub saxlanılması vacibliyinə də toxunulur. Həqiqətən də XXI yüzillikdə dünya xalqlarının sosial-siyasi, iqtisadi, mənəvi-əxlaqi və mədəni aspektlərdə planetar universallaşma prosesinə qoşulması onların həm də milli-mənəvi dəyərlərə qayıdışı ilə müşahidə olunur. Qarşısıalınmaz qloballaşma prosesinin müxtəlif xalqlar üçün yaratdığı milli-mənəvi aşınma təhlükəsi indi bu dəyərlərə əvvəlki dövrlərdə olduğundan daha həssaslıqla yanaşmağı tələb edir. Etnik-milli mövcudluğun siyasi, iqtisadi, mədəni-mənəvi suverenliyi ilə bağlı milli konsepsiya və konseptual ideyalar isə yekcins deyildir. Bu prosesi sosial-siyasi, iqtisadi və elmi-intellektual müstəvilərdə vahid qlobal har-moniya hesab edənlər də, kainatın daha çox vahid mərkəzdən idarə olunan bürokratik-texnoloji ərazi vahidinə çevrilmə prosesi olduğunu iddia edənlər də var.

Ən müxtəlif mövqe və münasibətlər-dən asdı olmayaraq qloballaşmaya doğru istiqamətlənmiş nəhəng inteqrasiya magistralı bəşəriyyəti öz ardınca aparır. Mümkün optimal variant isə bu prosesə hər bir etnosun milli-mənəvi «mən»ini dərk edərək qoşulmasından ibarət ola bilər. Bəlkə də bu zərurətin dərkindən doğan həqiqətin nəticəsidir ki, indi qloballaşma ayrı-ayrı xalqların etnik-mənəvi köklərinə yenidən dönüşü ilə xarakterizə olunur. Cəmiyyətin tarixi inkişaf qanunauyğunluğunun özünüqoruma instinktindən doğan bu müqavimət hissinin reallaşması isə milli lider amilindən asılıdır. Yeni siyasi şəraitdə Azərbaycanda bu ağır və məsuliyyətli missiyanı məhz cənab İlham Əliyev çiyinlərinə götürərək hakimiyyətdə olduğu bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin, o cümlədən türk əxlaqının, türk tarixinin böyük himayədarı qismində çıxış etmişdir.

*«Son illər ərzində dəyərlərimizi, tarixi köklərimizə bağlılığı, milli-mənəvi inkişaf istiqamətlərini yenidən, dərindən təhlil və tədqiq etməyə başlamışıq. Bu dövrdə yaşanan siyasi, iqtisadi problemlər əsas diqqəti multikulturalizmin (yeni dünya nizamında mədəniyyətlərin və sivilizasiyaların müxtəlifliyini və qarşılıqlı münasibətlərini əks etdirən anlayış) önəmli mövqe tutduğu çoxqütblü yeni dünya nizamının formalaşmasına, monosentrik dünyanın transformasiyasına yönəldir. Qlobal maliyyə böhranı hazırkı dünya sisteminin yeni tənzimləyici mexanizmlərinin işlənib hazırlanmasını, maliyyə-iqtisadi subyektlərin, dövlətlərin öz məsuliyyətlərini dərk etməsini zəruri edir. Belə bir şəraitdə dəyərlərimizi anlamaq, onları həyatımızın tərkib, ayrılmaz hissəsinə çevirmək və milli əsaslara söykənən siyasi-iqtisadi inkişaf istiqamətlərimizi uğurla davam etdirmək günün tələbidir. Bu, gələcək üçün bizim ən ümdə məqsədlərimizdən biridir»* – deyən akademik Ramiz Mehdiyev həmçinin vurğulayır ki, qloballaşmanın doğurduğu mənfi təzahürlərin milli maraqlara əks-təsiri unudulmamalı, mühüm məsələ kimi gündəlikdə qalmalıdır. Belə olan halda, dövlətin milli ideologiyası mənəvi dəyərlərə söykənərək, müxtəlif mənbəli təzyiqlərə qarşı mənəvi müqavimət və sanksiya statusu alır.

Akademik Ramiz Mehdiyev əsərdə milli elitanın formalaşma xüsusiyyətlərinə də toxunur. Xüsusi vurğulanır ki, milli elitanı birləşdirən başlıca meyar dövlətçiliyə xidmət, milli maraqların prioriteti, problem və vəzifələrin qoyuluşu və həllinə həssas münasibətlə fərqlənməkdir. Siyasətin elmi əsaslar üzərində bərqərar olması elitanın zamanın çağırışlarına uyğun, strateji düşüncə tərzinə malik olmasını, yenilik və dəyişikliklərə tələbat duyumunu önə çəkmişdir.

**Akademik Ramiz Mehdiyevin «Azərbaycan 2003-2008: reallığa çevrilən qeyri-adi zaman» əsərində yer almış başlıca fikir bundan ibarətdir ki, respublikamızın ən müxtəlif sahələrdə qazandığı uğur və nailiyyətlərin əsasında cənab İlham Əliyevin fenomenal liderlik keyfiyyətləri dayanır. Dövlət başçısı məhz bu keyfiyyətləri ilə insanları öz ideya və baxışları ətrafında toplamaq, onların iradələrinə, qərarlarına təsir göstərmək iqtidarında olduğunu tam sübuta yetirmiş, cəmiyyətin həlledici kəsimini arxasınca apara bilmişdir. Bu baxımdan da Prezident İlham Əliyev hazırda nəinki Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın fenomen liderlərindən biri kimi qəbul olunur.**

**“Dövlət idarəçiliyi”**.-2009.-№1.-S.121-127

# HEYDƏR ƏLİYEV VƏ İNSAN HÜQUQLARI

**Müsəddiq MƏMMƏDOV,**
Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin
İnsan hüquqları və ictimaiyyətlə
əlaqələr şöbəsinin müdiri

Böyük dövlət xadimi, müasir müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu ümummilli lider Heydər Əliyevin ölkəmizdə həyata keçirdiyi möhtəşəm islahatlar sırasında insan hüquqları sahəsi mühüm yer tutur. Totalitar sistemin iflasından sonra, bütün postsovet məkanında olduğu kimi, Azərbaycanda da bir müddət hüquqi boşluq yarandı. Bu isə ölkədə hüquqi nihilizmə, qanunsuzluğa və məsuliyyətsizliyə yol açdı.

Məsələnin ciddiliyini və tarixi məsuliyyəti, xalqın təkidli tələbini nəzərə alan Heydər Əliyev Azərbaycanı xilas etmək üçün yenidən siyasət meydanına qədəm basdı. O vaxt bu tarixi addıma hətta xalqımızın xaricdəki düşmənləri də xüsusi qiymət verdilər: onlar açıq-aşkar bəyan edirdilər ki, nə qədər Azərbaycanda Heydər Əliyev var, antiazərbaycan cəbhələrin bu xalqın üzərində qələbəsi mümkünsüzdür. Əlbəttə, daxili irtica da bu mətin şəxsiyyətin əleyhinə baş qaldırmışdı. Lakin bütün bunlara sinə gərən siyasi mogikan vətənin xilası, mütərəqqi islahatların və demokratik dünyəvi dövlət quruculuğu yolu üzərindəki maneələri qətiyyətlə dəf etdi, addım-addım irəliləyən ölkəni yeni siyasi perspektivə – müstəqil respublikanın geniş üfüqlərinə çıxardı.

Xalqımızın haqlı olaraq Qurtuluş Günü kimi dəyərləndirdiyi 1993-cü ilin 15 iyununa qədər ölkəmizdəki ictimai-siyasi vəziyyətə qısa nəzər salsaq, burada üç dağıdıcı qüvvənin – xarici düşmənlərin müdaxiləsinin, daxili irtica qüvvələrinin və antikonstitusion proseslərin baş qaldırdığını görürük.

Xalqımızın taleyində sovet imperiyasının çökməsi ilə ortaya çıxmış gözəl şansı – yeni müstəqil hüquqi dövlət quruculuğunu ən ciddi təhdid edən qüvvə bunlardan məhz üçüncüsü – ölkədə qanunsuzluq mühitinin formalaşması idi. Heydər Əliyevin rəhbərliyi ilə hələ keçmiş sovet dönəmində yaradılmış və qüvvəyə minmiş Konstitusiyanın əsas müddəaları əhəmiyyətini itirmiş, lakin yenisi isə hələ yaradılmamışdı. Dövlətin və xalqın siyasi varlığı isə yalnız hüquqi təməl üzərində yaşaya bilər.

SSRİ-nin süqutu ilə meydanı bürüyən siyasi dəllallar üçün əsas məqsəd vətən və millət pərdəsi altında yalnız şəxsi fayda, ucuz şöhrət və mənsəbdən ibarət idi. Odur ki, istər xarici, istərsə də daxili düşmən qüvvələr ölkəni ümumi xaosa, o cümlədən hüquqi vakuuma sürükləmişdilər. Respublikamızda bütün bunların qarşısını ala biləcək yeganə qüvvə Heydər Əliyev idi.

Azərbaycanda böyük siyasətə yenidən dönüşünə məhz Naxçıvandan, daha yaxından tanıdığı insanların içərisindən başlayan Heydər Əliyev qısa vaxt ərzində bu bölgədən start götürən milli dövlət quruculuğu xəttini çox keçmədən regional müstəvidən ümummilli yüksəkliyə qaldırdı.

Belə bir mühüm tarixi mərhələdə AXC-nin II qurultayının bəzi nümayəndələri Naxçıvan MR-in statusunun, onun dövlət strukturlarının və rəhbərliyinin dəyişdirilməsinə yönəlmiş təxribatçılıq fəaliyyətinə start verdilər. AXC Naxçıvan şöbəsinin rəhbərliyi altında 1992-ci il oktyabrın 24-də muxtar respublikada dövlət çevrilişinə cəhd edildi. Naxçıvanın gələcəyi sual altına qoyuldu. Əlbəttə, belə bir mürəkkəb tarixi məqamda uzaqgörən bir siyasətçi kimi Heydər Əliyev bircə addım da geriyə çəkilə bilməzdi. Əks-təqdirdə, nəinki yalnız naxçıvanlıların siyasi varlığı silinər, hətta bütün ölkənin hələ əvvəli Atatürk tərəfindən Leninlə razılaşma əsasında əldə edilmiş 11 kilometrlik (əvvəl 14 km olub) "ümid xətti" – dünyaya beynəlxalq çıxışı qapana bilərdi. Bu isə Qars və Moskva müqavilələri ilə təsbit olunmuş çox mühüm beynəlxalq status idi. Xarici düşmən qüvvələr ölkəmizin daxilindəki irticanın əli ilə məhz bu üstünlüyü aradan qaldırmağa çalışırdılar: muxtariyyətin ləğvinə və rəhbərliyin devrilməsinə cəhdlər də bu məqsədə xidmət edirdi. Lakin Heydər Əliyev xalqın dəstəyi ilə bu qüvvələri mətanətlə tarixin arxivinə yolladı. Bu gün ölkəmizdə özünün nəhəng maliyyə potensialı ilə dünya böhranına qarşı Böyük Neft Strategiyasının da təməlində məhz Naxçıvan MR Ali Məclisinin 1992-ci il oktyabrın 25-də keçirilmiş növbədənkənar sessiyasının qərarları durur desək, səhv etmərik. Çünki həmin gün nə şəxsən Heydər Əliyevin, nə də ki, Naxçıvan camaatının taleyi həll olunurdu, əsas hədəf Azərbaycanda yeni konstitusiyalı gələcəyin – siyasi müstəqilliyin, hüququn və demokratiyanın perspektivlərinin qorunub saxlanması idi. Heydər Əliyev buna qətiyyətlə nail oldu.

Ölkədə yaradıcı, işgüzar parlamentin seçilib, konstruktiv fəaliyyət üçün zəmin məhz 1995-ci il noyabrın 12-də qəbul edilmiş yeni – ilk müstəqil milli Konstitusiyamızın təsbiti ilə başlayır.

Heydər Əliyev üçün ölkədə insan hüquq və azadlıqlarının müdafiəsindən önəmli sahə yox idi. Bu onun fəaliyyətinin əsas qayəsini təşkil edirdi. Elə ona görə də 1937-1938-ci illərin "Siyasi repressiya qurbanlarına bəraət verilməsi haqqında" Qanunun (1996-cı il) qəbul edilməsi, habelə ötən əsrin 40-cı və 50-ci illərində öz

ata-baba yurdundan məcburi köçürülmüş qərbi azərbaycanlıların tarixi fəlakətinə və 1990-cı ilin 20 Yanvar qətliamına siyasi qiymət verilməsi ümummilli liderimizin insan hüquqları ilə bağlı məsələlərə xüsusi münasibətinin ifadəsidir.

1995-ci ildə ümumxalq müzakirəsi və referendumu nəticəsində legitimləşmiş Heydər Əliyevin şah əsəri – ilk milli Konstitusiya ölkədə hüquqi sistemin özülünü, onun normativ əsaslarını, azad ədalət məhkəmələrinin status və fəaliyyət prinsiplərini müəyyənləşdirdi. Məhz bu hüquqi baza üzərində Azərbaycan vətəndaşına öz hüquq və azadlıqlarını qorumaq üçün hər cür imkanlar yaradıldı, hətta onun Avropa İnsan Hüquqları Məhkəməsinə – Strasburqa müraciət etmək və öz problemini beynəlxalq insidentə çevirə bilmək şansı tanındı. Qərb hüquq sisteminə sürətlə inteqrasiya olunan Azərbaycan milli ədliyyəsi anqlosaks ədalət mühakiməsinin presedentlər təcrübəsini özünün fəaliyyəti ilə uzlaşdırma mərhələsinə qədəm qoyub. Presedentlərin german hüquq sistemi ilə ziddiyyətlərinin aradan qaldırılması prosesi gedir. Burada da Heydər Əliyevin humanizm baxışları, insan hüquq və azadlıqlarına böyük önəm verən hüquqi irsi başlıca rol oynayır.

İnsan hüquqlarının və azadlıqlarının təminatının yaradılması istiqamətində Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və Milli Məclisdə qəbul edilmiş qanunvericilik aktları – "Vətəndaşlıq haqqında", "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Qaçqınlar və məcburi köçkünlərin statusu haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və digər qanunlar ölkəmizdə sabitliyin və qanunçuluğun rəmzidir. Dahi rəhbər hər an, hər şəraitdə qanunun aliliyini qoruyub saxlamağa çağırırdı: "Qanun hamı üçün qanundur. Həm adi vətəndaş üçün, həm hakimiyyət məmuru üçün, həm dövlət məmuru üçün, həm də şəhid ailəsi üçün ". Bu gün respublikamızın hər bir vətəndaşı milli Konstitusiyamızın 127-ci maddəsinə görə tam hüquqi müdafiə təminatına malikdir: heç bir şəxs tərəfindən bilavasitə, yaxud dolayı yolla məhkəmə icraatına məhdudiyyət qoyulmur, qanunazidd təsir və müdaxilələr edilməsinə yol verilmir. Çünki keçmiş totalitar rejimlərdə olduğu kimi, hakimlərin siyasi və s. təcrübəsi artıq xalqımızın tarixi taleyində – minlərlə ziyalımızın 37-ci il repressiyalarında, siyasi təqiblərində və qırmızı terrorun bütün təzahürlərində özünün qara üzünü ifşa etmişdir. Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən hüquqi dövlət quruculuğunun əsas xətlərindən biri də məhz məhkəmələrin, hakimlərin müstəqilliyinə nail olunması idi. Dahi rəhbər çox gözəl bilirdi ki, məhkəmələrin müstəqilliyinə qarşı yönəlmiş hər hansı bir hərəkət yalnız ədliyyəyə, ədalətə və mühakimə prosesinə deyil, öncə vətəndaşların Konstitusiya ilə qorunan hüquq və azadlıqlarına qarşıdır. Məhz ona görə də ölkədə insan hüquqları və azadlıqlarının müdafiəsi onun fəaliyyətinin başlıca qayəsi, məğzi və hədəfi idi. Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1996-cı ildə qəbul edilmiş "Siyasi repressiya qurbanlarına bəraət verilməsi haqqında" Qanun tarixin acı dərslərini yada salmaq və bir daha onun təkrarlanmasına yol verməmək üçün böyük önəm və məna kəsb edir.

İnsana ali baxışın, yüksək dəyər verilməsinin daha bir parlaq örnəyi 1998-ci il fevralın 10-da bütün Şərq xalqlarının tarixində ilk dəfə olaraq məhz Azərbaycanda – Prezident Heydər Əliyevin imzası ilə ölüm cəzasının ləğv edilməsi oldu.

Heydər Əliyevin insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyətinin mühüm bir istiqaməti də söz və mətbuat azadlığı ilə bağlıdır. O öz şəxsi həyat təcrübəsindən və tarixdən çox gözəl bilirdi ki, insanların öz fikrini maneəsiz, senzurasız başqalarına çatdırmaq məqsədilə apardığı mübarizə istər hüquqi, istərsə də mənəvi baxımdan nə qədər çətin və mürəkkəb bir prosesdir.

Qısa bir vaxtda KİV haqqında qanunvericiliyin hüquqi bazası yaradıldı, söz və mətbuat azadlığı, jurnalistin informasiya almaq və onu yaymaq hüququ, mətbuatda böhtan, diffamasiya, şərəf və ləyaqətin qorunması, təhqirin yolverilməzliyi, dövlət sirlərinin mühafizəsi, milli təhlükəsizlik problemləri, jurnalistlərin öz informasiya mənbələrini müdafiə hüququ, KİV-in dövlət orqanları ilə münasibətləri, lisenziya və senzuranın ləğvi və digər məsələlər öz hüquqi həllini tapdı. Bununla da, Azərbaycan bir çox başqa xalqların – Qərbin yüzilliklər ərzində keçdiyi yolu qısa zaman kəsiyində qət etdi.

Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin ikinci mərhələsi onun barəsində uzun illər qara piarla ictimai rəyi çaşdırmağa can atanlara tutarlı cavab oldu: bu, demokratik cəmiyyətə doğru milli inkişaf yolunun prioritetliyinin hüquqi təsbiti və tarixi həllidir. Məhz onun sayəsində ölkədə ictimai demokratiya institutları, o cümlədən kütləvi informasiya vasitələri önəmli rol aldılar. Qeyd edək ki, Azərbaycanın milli mətbuatı hələ özünün ilk yaranış dövründən 1990-cı illərin əvvəllərinədək sərt senzura rejimində fəaliyyət göstərmişdir.

Müəyyən dövr ərzində jurnalistlərin sərbəst informasiya fəaliyyəti xeyli məhdudlaşdırıldı, senzura idarəsinin fəaliyyəti daha da sərtləşdirildi. Yalnız Heydər Əliyevin respublika rəhbərliyinə təkrar qayıdışı ilə 200 illik qara ənənəyə əbədi son qoyuldu: 1996-cı il noyabrın 14-də "Dövlət sirri haqqında" Qanunun qəbulu ilə senzura tətbiqi hüquqi əsasını itirdi, 1998-ci il aprelin 6-da isə senzuranın ləğvi tam reallığa çevrildi.

1999-cu il dekabrın 7-də qəbul edilmiş "KİV haqqında" qanun, habelə "Televiziya və radio fəaliyyəti haqqında" (25 iyun 2002-ci il), "İctimai yayım haqqında" (2004-cü il), "İnformasiya əldə etmək haqqında" (2005-ci il), "Reklam haqqında" və "Telekommunikasiya haqqında" qanunlar, Mülki Məcəllənin 23-cü maddəsi (şərəf, ləyaqət və işgüzar nüfuzun mülki-hüquqi müdafiəsi), Cinayət Məcəlləsinin 147-ci (böhtan), 148-ci (təhqir), 163-cü (jurnalistlərin qanuni peşə fəaliyyətinə mane olma), 202-ci (məlumatları qanunsuz yolla əldə etmə və yayma), 242-ci (pornoqrafik materialları yayma), 283-cü (milli, irqi, sosial, dini nifrət və düşmənçilik salınması), 323-cü (dövlət başçısının şərəf və ləyaqətini ləkələmə və ya alçaltma), 324-cü (dövlət bayrağı və gerbi barədə təhqiredici hərəkətlər) və s. maddələr media hüququ ilə bağlı sosial davranışı yönəldən, məcburi yürüdülən qaydaları müəyyənləşdirir.

KİV-lə bağlı hüquqi təminatın başlıca mənbəyi isə, heç şübhəsiz, Azərbaycan Respublikasının Konstitusiyasıdır. Burada KİV-in fəaliyyətini tənzimləyən əsas prinsiplər, dövlət və vətəndaş münasibətlərini nizama salan müddəalar, habelə hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı; kütləvi informasiya azadlığı; mətbuatda senzuranın qadağan olunması; irqi, milli, sosial ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilməməsinə dair təminatlar öz hüquqi əksini tapmışdır.

Azərbaycan milli mətbuatının 130 illiyi ilə bağlı 2005-ci il iyulun 21-də keçirilən tədbirdəki çıxışında Prezident İlham Əliyev ölkəmizin söz və mətbuat azadlığı sahəsində yürüdülən Heydər Əliyev siyasətini belə dəyərləndirib: "Mən ümid edirəm ki, gələcəkdə milli mətbuatımız daha da inkişaf edəcək, dövlət, hökumət tərəfindən lazımi tədbirlər görüləcək. Heydər Əliyev mətbuata daim böyük diqqətlə yanaşırdı. Mətbuatın maddi-texniki bazasının möhkəmlənməsinə, ümumiyyətlə, mətbuata onun qayğısı həmişə hiss olunurdu. Mən çalışıram ki, öz tərəfimdən bunu davam etdirim. İndi nə dərəcədə müvəffəq olmuşam, bunu demək mənim üçün çətindir. Amma istəyirəm biləsiniz ki, heç bir fərq qoymadan, mənim mətbuata münasibətim çox müsbətdir. İstər iqtidar mətbuatı olsun, istər müxalifət mətbuatı, istərsə də müstəqil mətbuat olsun, bu bizim mətbuatımızdır. Bu Azərbaycanın demokratik inkişafına çox böyük töhfədir" .

Göründüyü kimi, maddi hüquq dövlətin əsaslarından biri olaraq, ölkəmizdə söz, fikir, mətbuat sahəsində təmin olunmuş hüquq və azadlıqlar demokratik Qərb standartlarına tamamilə uyğundur. Bu, əlbəttə, siyasi müstəqilliyimizin qısa təcrübəsi müddətində əldə edilmiş böyük uğurlardır. Bu geniş hüquq və azadlıqların əldə edilməsi məhz Heydər Əliyevin siyasi iradəsi, qanunvericilik təşəbbüskarlığı, hüquq yaradıcılığı ilə bağlıdır.

Respublikamız ümummilli lider Heydər Əliyevin titanik fəaliyyəti sayəsində qısa müddətdə əsl sosial dövlətə çevrildi. Hətta ölkəmizin bir çox sahələrdə parametrləri ən inkişaf etmiş Qərb dövlətlərinin standartlarını belə üstələdi. Bunu 2005-ci il noyabrın 11-12-də Bakıda keçirilmiş "Hüquqi dövlətin qurulmasında Konstitusiyanın rolu" mövzusunda milli Konstitusiyamızın 10 illiyinə həsr olunmuş konfransda xarici qonaqlar açıq etiraf etdilər. Məsələn, Bremen Universitetinin professoru Rolf Knisper "Azərbaycan Konstitusiyasının iqtisadi və sosial əhəmiyyəti" mövzusunda çıxışında demişdir: "Azərbaycan Konstitusiyası dövlətin üzərinə vətəndaşların sosial müdafiəsini həyata keçirmək öhdəliyini qoyur (Azərbaycan Respublikası Konstitusiyasının 16-cı maddəsi) və eyni zamanda öz vətəndaşlarını bu sosial müdafiəyə hüquqla təmin edir (Azərbaycan Respublikasının Konstitusiyasının 38-ci maddəsi), lakin dövlət məqsədlərini təyin edən müddəalarında Əsas Qanunun çərçivəsindən xeyli kənara çıxır". Həqiqətən, Azərbaycan Konstitusiyası milli dövlətimizin fəaliyyətinin ali məqsədi kimi vətəndaşlarımızın hüquq və azadlıqlarının təminatını elan edir. Birbaşa hüquqi qüvvə ilə bütün sosial hüquqları, yəni əmək azadlığı hüququ, fəaliyyətin və ixtisasın növünün azad seçimi hüququ, təhlükəsizlik və gigiyena tələblərinə cavab verən əmək şəraitləri hüququ, işsizlikdən müdafiə və istirahət hüququ müəyyənləşdirir. Konstitusiya əməkhaqqının və pensiyaların minimal həcmini, yaşla, xəstəlik və əlillik zamanı sosial təminatı (Azərbaycan Respublikası Konstitusiyasının 38-ci maddəsi), tibbi köməyin pulsuz təmin edilmiş minimal həcmini (AR Konstitusiyasının 41-ci maddəsi), pulsuz orta təhsil (AR Konstitusiyasının 42-ci maddəsi) üzrə təminat verir və dövlət məqsədi qismində insanın həyatı və sağlamlığı üçün münasib ətraf mühitin mühafizəsini (AR Konstitusiyasının 39-cu maddəsi) qoyur. Azərbaycan Konstitusiyasının mütləq qüvvəsi baxımından dövlət bütün bu məqsədlərin icrasına görə məsuliyyət daşıyır. Odur ki, hər hansı dövlət məmurunun, strukturun müvafiq məqsəddən yayınması birbaşa Konstitusiyanın pozulması demək olardı.

Hüquq və azadlıqların bu geniş sferasında qanunun aliliyinin təmin olunması sahəsində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi çox mühüm rol oynayır. Məlum olduğu kimi, ümumi ədliyyə sistemindən kənar belə bir hüquq müdafiə təsisatının yaradılması da məhz Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci il noyabrın 12-də qəbul edilmiş milli Konstitusiyamızın sayəsində mümkün olmuşdur. Belə bir hüquqi zəmin üzərində 1997-ci ildə "Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi haqqında" qanun qəbul edilmiş, 1998-ci il iyulun 14-dən etibarən həmin məhkəmə fəaliyyətə başlamışdır. Konstitusiya Məhkəməsi qanuni

təyinatına uyğun olaraq, Konstitusiyamızın aliliyinin təmin edilməsi uğrunda fəal çıxış edir – Konstitusiya nəzarət orqanı kimi vətəndaşların hüquq və azadlıqlarının müdafiəsində mühüm yer tutur. Bu məhkəmə həm norma nəzarəti, həm də Konstitusiyanın və qanunların rəsmi şərhi üzrə qəbul etdiyi qərarlarında konstitusionalizm ideyalarının inkişafına yol açır, Əsas Qanuna uyğun olmayan qanunları və digər normativ hüquqi aktları qanunvericilik sistemindən çıxarır, habelə onların konstitusiya hüquqi məzmununu şərh edir.

Bütün bunlar onu əyani surətdə əks etdirir ki, Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan Respublikasında insan hüquq və azadlıqları ali dəyər kimi qəbul edilir, Əsas Qanunun normalarında geniş təsbit olunur və bunların həyatda gerçəkləşməsi konstitusiya nəzarət orqanı səviyyəsində hüquqi müdafiəyə malikdir. Konstitusiya Məhkəməsi milli dövlətçiliyimizin inkişafında, vətəndaş cəmiyyətinin yaranmasında, insan hüquq və azadlıqlarının təmin edilməsində, habelə cəmiyyətdə məhkəmə sisteminə etimadın artırılmasında, qanunların implementasiyası və demokratik hüquq mədəniyyətinin inkişafında avanqard rol oynayır. 1998-ci ildən bu günə qədər Konstitusiya Məhkəməsinə daxil olmuş müraciətlər və sorğular üzrə 164 qərar və 27 qərardad qəbul edilmişdir. Bütövlükdə qəbul edilmiş qərarlardan 40,2 faizi Konstitusiya şikayətləri, 27,4 faizi Ali Məhkəmənin sorğusu üzrə, 9,1 faizi prokurorluğun sorğusu üzrə, 2,4 faizi Nazirlər Kabinetinin sorğusu üzrə, 5,5 faizi məhkəmə müraciətləri üzrə, 2,4 faizi Ombudsmanın sorğusu üzrə, 1,2 faizi Prezidentin sorğusu üzrə, 0,6 faizi Milli Məclisin sorğusu üzrə, 11 faizi isə seçkilərin nəticələrinin yoxlanılması üzrə qəbul edilmişdir. Göstəricilər əyani sübut edir ki, artıq Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi milli dövlət orqanları sistemində öz layiqli yerini tutmuşdur. Unutmaq olmaz ki, Konstitusiya Məhkəməsinin qərarları qanun qüvvəsinə malikdir, ümumməcburi xarakter daşıyır. Konstitusiyaya uyğun olmayan qanunlar, digər normativ aktlar Konstitusiya Məhkəməsinin qərarı ilə ləğv edilir, məhkəmə aktları hüquqi qüvvəsini itirir, beynəlxalq müqavilələr isə imzalana, ratifikasiya edilə və qüvvəyə minə bilməz. Məhz buna görə də Konstitusiya və qanunların şərhinə dair Konstitusiya Məhkəməsinin qərarları konstitusiya hüququnun mühüm mənbələri hesab edilir.

"Konstitusiya Məhkəməsi haqqında" Qanuna əlavə və dəyişikliklər" üzrə 2003-cü il 23 dekabr tarixli Qanuna əsasən vətəndaşların pozulmuş hüquq və azadlıqlarının bərpası ilə bağlı birbaşa Konstitusiya Məhkəməsinə müraciət etməsi hüququnun həyata keçirilməsi mexanizmləri müəyyən edilmişdir.

Heydər Əliyevin hakimiyyətdə olduğu illər ərzində respublikamız Qərb hüquq məkanına uğurla inteqrasiya etmişdir. Vətəndaşın ümumi yurisdiksiya məhkəmələrinin qərarlarından konstitusiya şikayəti verə bilməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə Avropa İttifaqı hüququna münasibətdə öz mövqeyini müəyyənləşdirməsinə geniş imkanlar yaratmışdır. Odur ki, Avropa İttifaqı hüququnun tətbiqinin başlıca prinsiplərinin müdafiəsində əsas ağırlıq da məhz milli Konstitusiya Məhkəməmizin üzərinə düşür. Bu, önəmli məqamdır. Çünki respublikamız "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya", "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt", "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt", "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud insan ləyaqətini alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiya" və s. sənədlərə tərəfdar çıxaraq, beynəlxalq hüququn müddəalarının daxili qanunvericiliyə inkorporasiyasına görə öhdəlik götürmüşdür. Qərb hüquq məkanına inteqrasiya dövlətimizin əsas məqsədlərindən biri idi. Çünki ölkəmiz yalnız "Əsrin müqaviləsi", Bakı-Tbilisi-Ceyhan neft kəməri, tarixi İpək Yolunun bərpası və digər qlobal fəaliyyətlər üzrə Qərbə iqtisadi inteqrasiya ilə kifayətlənə bilməzdi. Ulu öndərin Azərbaycanı Avropa hüquq modeli əsasında gələcək nəsillərə təhvil vermək arzusu daha böyük önəm daşıyırdı, çünki Avropa ölkələri öz gələcək inkişafının ümumi istiqamətlərini birmənalı şəkildə belə müəyyənləşdirmişlər – insan hüquqlarının prioriteti, həqiqi demokratik siyasi rejim və hüququn aliliyi.

Əlbəttə, bu böyük dəyərlər Heydər Əliyevin xalqımızı və Vətənimizi Qorbaçovun "yenidənqurma" avantürası nəticəsində yaranmış xaosdan çıxarmasının, Azərbaycanı məhvolmadan xilas etməsinin başlıca mənəvi motivi olmuşdur. Bəzi üzdəniraqların qara piarlarına, qərəz və böhtanlarına baxmayaraq, müstəqil ölkəmiz özünün bütün parametrləri etibarilə dahi rəhbərimizin siyasi kursuna tamamilə sadiqdir və yaxın ətrafındakı avtoritar rejimlərin əhatəsində əsl demokratiya, azadlıq məkanı kimi yaşayır və inkişaf edir. Bu demokratik dövlət altı ilə yaxındır ki, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən böyük bacarıqla idarə olunur. Ölkəmizdə fərdin, dövlətin və cəmiyyətin həyatının bütün sahələrinin ilk Milli Konstitusiyamızın – ulu öndərimizin şah əsərinin hüquqi tələblərinə uyğunlaşdırılması prosesi gedir. Bu isə Heydər Əliyev ideyalarının qarşısıalınmaz, əbədi xarakterindən irəli gəlir.

Respublikada hər bir vətəndaşın büdcədən maliyyələşən dövlət və hökumət strukturlarında çalışa bilməsi üçün bərabər hüquqi imkanların yaradılması istiqamətində son illər həyata keçirilən tədbirlər, xüsusilə qulluqçuların test imtahanları yolu ilə müəyyənləşdirilməsi demokratik dövlət idarəetməsinin bariz ifadəsidir. Korrupsiyaya qarşı mübarizə, elektron-hökumət proqramı çərçivəsində şəffaflaşdırma sahəsində əldə edilmiş nailiyyətlər, nəhayət, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Ombudsman institutunun geniş

fəaliyyəti ölkədə konstitusiya mühitinin tam formalaşmasına, inkişafına əlavə imkanlar açıb. Bütün bu fəaliyyətlər keçmiş totalitar sistemdən çıxmış bir xalqın postkommunist məkanda azad demokratik bir cəmiyyətə, hüquqi dövlətçiliyə layiq olduğunu əyani sübut edir, milli maraqlarımızın qorunması sahəsində bütün beynəlxalq təsisatlarda tam bərabərhüquqlu iştirakımıza, təmsilçiliyimizə haqq qazandırır. Ərazimizin 20 faizinin işğalı, bir milyona qədər qaçqın və məcburi köçkünlərimizin olduğu bir vaxtda bu, bizim üçün çox vacib siyasi və tarixi amildir.

Bu gün Heydər Əliyevi daha çox Atatürklə, kansler Adenauerlə, Şarl de Qoll ilə müqayisə edirlər. Lakin ulu öndər müqayisəedilməz bir şəxsiyyət idi. O, beynəlxalq tədric şəraitində və geosiyasi güclərin təhdidləri altında yaşayan bir xalqı bütün dünya dövlətlərinin tanıyıb qəbul etməsinə nail oldu. Bütün bunlara böyük önəm verən respublikamızın Prezidenti, müdrik rəhbərin layiqli siyasi varisi İlham Əliyev haqlı olaraq xüsusi qeyd edir: "Bu gün Azərbaycan tam mənada müstəqil siyasət aparır, heç kimdən asılı deyil və öz siyasətini yalnız və yalnız Azərbaycan xalqı naminə aparır". Əlbəttə, bu gün Prezidentin həyata keçirdiyi Heydər Əliyev siyasi kursu özünün dönməz xarakteri, perspektivləri və əbədiliyi ilə alternativsizdir. Çünki onun başlıca qayəsi İnsandır. Artıq heç bir kənar siyasi iradənin – gücün, imperiyanın, ideologiyanın təsiri ilə azərbaycanlının taleyi dar ağacına, sürgünlərə, repressiyalara sürüklənə bilməz. Bu xoşbəxtliyi, azad, firavan həyatı xalqımıza Heydər Əliyev dühası bəxş edib. Əsrlər, nəsillər dəyişəcək, həyat daha da irəliləyəcək, lakin ulu öndərimizin əzəmətli, gur, qətiyyətli səsi daim eşidiləcək, bu milləti, vətəni və insanlığı sevən hər kəsə müqəddəs nümunə olacaqdır: "Mən Azərbaycanlı kimi dünyaya gəldiyimə, Azərbaycan dilində danışdığıma, Azərbaycan kimi vətənim olduğuna, Azərbaycanı təmsil etdiyimə görə özümü xoşbəxt saymışam".

**"Azərbaycan".-**2009.-10 iyun.-N 124.-S.3.

# XALQA LAYİQLİ XİDMƏT MƏRAMI

**Abel MƏHƏRRƏMOV,**
Bakı Dövlət Universitetininrektoru, akademik,
Milli Məclisin deputatı

Bəşər tarixi göstərir ki, milli dövlətçiliyini itirmək və dünya xəritəsindən tamamilə silinmək təhlükəsi ilə üz-üzə qalmış xalqlar taleyüklü sınaq anında məsuliyyəti öz çiyinlərinə götürmüş qətiyyətli liderlərinin müdrikliyi, fenomenal idarəçilik keyfiyyətləri sayəsində mövcudluqlarını qorumuş, çətinliklərə sinə gərmişlər. Xüsusi rəhbərlik keyfiyyətlərinə malik belə şəxsiyyətlər sosial-iqtisadi, ictimai-siyasi və mənəvi-mədəni kataklizmlər dövründə xalqa düzgün yol göstərən xilaskar missiyasında çıxış etmiş, həm də ümummilli liderlik zirvəsinə yüksəlmişlər.

Böyük liderlər üçün səciyyəvi cəhətlərdən biri də siyasi intuisiya və uzaqgörənlik, hadisələrin gedişinə təsir göstərmək və ya onu qabaqlamaq bacarığıdır. Bu elə vacib keyfiyyətdir ki, təkcə bütöv bir millətə deyil, hətta kiçik partiyaya, qrupa rəhbərlik edən şəxs də siyasi proseslərin gedişini fəhmlə duymalı, gözlənilən uğur və uğursuzluqları əvvəlcədən hesablamağı bacarmalıdır. Tarixən bir çox nüfuzlu liderlərin siyasətdə qarşıya qoyduğu məqsədlərə yetişərək uğur qazanması, rəhbərlik etdiyi xalqı böyük fəlakət və faciələrdən hifz etməsi məhz iti fəhm və uzaqgörənliyin nəticəsi olmuşdur. Bu reallığa nəzərən qətiyyətlə demək olar ki, ümummilli lider Heydər Əliyev də məhz belə uzaqgörən, siyasi proseslərin inkişaf trayektoriyasını əvvəlcədən duyan, çoxgedişli kombinasiyalar qurmağı bacaran, hadisələrə pozitiv təsir göstərən şəxsiyyət kimi xalqının qəlbində yaşayır, onun nurlu xatirəsi daim dərin ehtiramla anılır.

Əminliklə deyə bilərik ki, ümummilli lider Heydər Əliyevin hələ sağlığında əfsanəvi, xarizmatik liderə çevrilməsində onun həyatı üçün heç bir riskdən çəkinməməsi, sözünü məqamında deməyi bacarması, milli ideallar uğrunda mübarizədə yüksək qətiyyət göstərməsi kimi xarakterik xüsusiyyətləri mühüm rol oynamışdır. Məhz bunun sayəsində ulu öndər, harada olursa-olsun, hadisələrin fövqünə qalxıb, idarəçilik qabiliyyətini reallaşdıra bilmiş, lider imicini qorumuşdur. Liderlik onun xarakterindən, dünyagörüşündən, yaradıcılıq enerjisindən, qurub-yaratmaq həvəsindən mayalanmışdır. Böyük siyasətdə qarşıya qoyduğu məqsədlərin əksəriyyətinə yetişərək uğur qazanması, rəhbərlik etdiyi xalqı dəhşətli fəlakət və faciələrdən hifz etməsi isə dahi strateq Heydər Əliyevin iti fəhminin, müdrikliyinin və uzaqgörənliyinin nəticəsi olmuşdur.

Siyasi lider daim öz cəsarəti, çevik və rasional qərarları, ən çətin situasiyalardan optimal çıxış yolu tapmaq məharəti ilə seçilən parlaq şəxsiyyətdir. O, yalnız enerjisi, natiqlik məharəti ilə deyil, həm də çevrəsində olan insanların tələbat və ehtiyaclarını ifadə etmək bacarığı ilə fərqlənir, cəmiyyətdə ayrı-seçkiliyə yol vermir, hər zaman haqqa, ədalətə tapınır. Zamanın nəbzini tutmağı, hadisələrə real qiymət verməyi, siyasi potensialını düzgün dəyərləndirməyi bacaran lider cəmiyyətdəki prosesləri düzgün istiqamətləndirməyə nail olur, milli inkişafın əsasına çevrilən cəlbedici proqram və konsepsiyaların müəllifinə çevrilir.

Bu gün siyasi baxışlarından asılı olmayaraq mütləq əksəriyyət etiraf edir ki, ötən əsrin ortalarında – 1969-cu ilin 14 iyulunda ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə irəli çəkilməsi xalqı milli müstəqilliyə doğru aparan işıqlı yolun başlanğıcına çevrilmişdir. Haqq-ədalət uğrunda mücadiləni özünün həyat kredosuna çevirmiş ulu öndər hələ sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə hər bir fərdin maraq və mənafeyini üstün tutmaqla, ədalətli və qanunpərəst rəhbər olduğunu təsdiqləmişdir. Dərin zəkası, lider xarizması, milli ideallara sıx bağlılığı, unikal idarəçilik məharəti, zəngin mənəviyyatı ilə hər zaman xalqının önündə olmuş ulu öndər hakimiyyət sükanının arxasına keçdiyi ilk gündən qanunsuzluğa, ədalətsizliyə və nihilizmə qarşı apardığı prinsipial mübarizə ilə nüfuz qazanmışdır. Ölkə rəhbəri cəmiyyətdə hökm sürən neqativ halların ilk növbədə kadr problemi ilə bağlı olduğunu müdrikliklə müəyyənləşdirmiş, bu sahədə ciddi dönüşün yaradılması vacibliyini önə çəkmişdir.

Ümummilli liderin Azərbaycanda rəhbərliyə gəlişi eyni zamanda cəmiyyətdə hüquqi münasibətlər sisteminin xarakterində pozitiv dəyişikliklərə səbəb olmuş, cəmiyyətdə hüquqi təfəkkürün, düşüncə tərzinin, hüquqi mədəniyyətin, ümumilikdə, hüquq elminin inkişafının keyfiyyətcə yeni mərhələsi başlanmışdır. Həmin illərdə respublika rəhbərliyi səviyyəsində keçirilən müxtəlif tədbirlər də məhz bu məqsədlərin real həyatda tətbiqinə yönəltmişdir. Azərbaycan KP MK-nın 1970-ci il dekabrın 4-də qəbul etdiyi “Zəhmətkeşlərin hüquqi tərbiyəsini yaxşılaşdırmaq tədbirləri haqqında” qərarı da məhz Heydər Əliyevin təşəbbüsü, ideya müəllifliyi və səyləri ilə hazırlanaraq qəbul olunmuşdur. Bu qərarda orta və ali ixtisas məktəblərində hüququn əsaslarının tədrisi və öyrənilməsi işini yaxşılaşdırmaq, hüquqi biliklərin təbliğini gücləndirmək, qanunvericiliyin ən aktual məsələlərinin gənc nəslə öyrədilməsinə və izah olunmasına, hüquq qaydalarının möhkəmləndirilməsinə və dövlət mülkiyyətinin qorunmasına yönəldilən kütləvi-siyasi tədbirlərin keçirilməsi sahəsində tədbirlər planı

işləyib hazırlamaq tələbi irəli sürülürdü. Məzmunundan da göründüyü kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə qəbul olunmuş bu qərar həmin dövrün sosial eybəcərliklərinə, acı ictimai-mənəvi gerçəkliklərinə, ozamankı partiya-sovet-təsərrüfat elitasının volyuntarizminə və özbaşınalığına, hüquqi nihilizm və inzibati-amirlik sisteminin digər tipik təzahür formalarına qarşı kəskin etiraz və ağıllı müqavimət demək idi.

Ulu öndər respublikaya birinci rəhbərliyi dövründə daha çox yüksək mənəvi-əxlaqi keyfiyyətləri, intellektuallığı, yüksək bilik səviyyəsi ilə fərqlənən gənclərə üstünlük vermiş, onları dövlət idarəçiliyinə irəli çəkmişdir. Heydər Əliyevin rəhbərliyinə qədərki dövrdə hüquqşünaslığın, belə demək mümkünsə, "irsən ötürülməsi cəhdləri" geniş vüsət almışdı. Yüksək vəzifəli məmurlar, xüsusən də, hüquq-mühafizə sistemində çalışan şəxslər övladlarını ozamankı Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində yerləşdirmək üçün ən müxtəlif vasitələrə əl atırdılar. Nəticədə imkansız, lakin savadlı və qabiliyyətli gənclərin, fəhlə-kəndli övladlarının hüquqları kobud şəkildə pozulur, onların hüquq təhsili almaq istəyi arzu olaraq qalırdı. Ulu öndər qəbul etdiyi qətiyyətli qərarla belə halların qarşısını almış, haqqı, ədaləti bərpa etmiş, hüquqşünas kadrların seçilməsində millilik və peşəkarlıqla yanaşı, ədalətlilik, təmizlik, düzgünlük kimi vacib meyarları əsas götürmüşdür. Həmin illərdə yaranmış demokratik və şəffaf mühit nəticəsində istəyinə qovuşmuş yüzlərlə zəhmətkeş azərbaycanlı övladı – respublikamızın hazırkı adlı-sanlı hüquqşünasları ulu öndərin bu addımını daim böyük rəğbət və ehtiramla xatırlayırlar.

Ümummilli lider Heydər Əliyev çox sonralar – 2000-ci ildə Milli Mətbuat Günü ilə əlaqədar jurnalistlərlə söhbətində bu barədə deyirdi: "Vaxtilə mən ali məktəblərə tələbə qəbulunda rüşvətxorluğa qarşı mübarizə aparırdım. Məsələn, 1970-ci illərdə nəyi gördüm? Bizim dövlət universitetinin hüquq fakültəsi var. O vaxt həmin fakültəyə hər il 50 nəfər qəbul olunurdu. Mən bir dəfə baxıb gördüm ki, bu hüquq fakültəsinə qəbul olunanların təqribən 95 faizi prokurorun, məhkəmə sədrinin, nazirin oğludur və sairə. Yaxşı, belə çıxır ki, atası prokuror, sonra da oğlu, nəvəsi prokuror olacaq. Bəs başqa ailələrdən olan istedadlı gənclər necə olsun? Bəzilərinin heç atası yoxdur, bəs, o, hüquq fakültəsinə necə daxil olsun? O vaxt, o cümlədən tarix və şərqşünaslıq fakültələri çox modda idi. Mən vəzifədə olan şəxslərin, xüsusən, hüquq-mühafizə orqanlarında – milisdə, prokurorluqda və sairə – çalışan şəxslərin uşaqlarının bu fakültələrə qəbul olunmasını qadağan etdim. Bu, cəmiyyətdə çox böyük əhval-ruhiyyə yaratdı. İndi mən prokurorluqda, polisdə çalışan bəzi işçilərlə görüşürəm. Onlar deyirlər ki, "Bilirsiniz, biz o vaxt Sizin sayənizdə hüquq fakültəsinə daxil ola bildik. Yoxsa bu fakültəyə girə bilməzdik, çünki biz kənddən gəlmişdik, kasıb adam idik, nə rüşvət verməyə pulumuz, nə də himayədarlıq etməyə adamımız var idi".

"Qoy, ədalət zəfər çalsın!" devizini rəhbər tutan ümummilli lider ötən əsrin 70-80-ci illərində xalqın təbii hüquqlarının əzmkar və cəfakeş müdafiəçisinə çevrilməklə, milli ruh, iradə və özünüdərk meyillərinin ictimai şüurda möhkəmlənməsinə nail olmuşdur. Milli düşüncə sahibi olduqlarına görə təqib edilən Azərbaycan yazıçı və şairlərini – Bəxtiyar Vahabzadəni, Xəlil Rza Ulutürkü, Anarı, Əkrəm Əylislini, məşhur tarixçi-alim Ziya Bünyadovu və digər ziyalıları ən çətin məqamlarda müdafiə etməsi ulu öndərin hələ keçmiş sovetlər dövründə insan hüquqlarına hörmətindən, yüksək demokratizmə söykənən idarəçiliyindən xəbər verirdi. Bir sıra müttəfiq respublikalardan fərqli olaraq həmin illərdə Azərbaycanda nəinki dissident yazarlar olmamış, əksinə, tanınmış ziyalı və şairlər xalqda özünüdərk hissinə ciddi impulslar verən əsərlər yazmış, ulu öndərin milliliyi, xalqına bağlılığı onları həbs olunaraq zindana atılmaq təhlükəsindən hifz etmişdir.

Milli-mənəvi irs və dəyərlərə bağlı olmuş Heydər Əliyev həmin illərdə rus dilinin zorla ittifaq xalqlarına qəbul etdirilməsi cəhdləri ilə barışmamış, fürsət düşdükcə, ana dilinin təbliğinə və yayılmasına geniş diqqət yetirmişdir. Hələ 1969-cu ilin 1 noyabrında ozamankı Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyinə həsr olunmuş tədbirdə bütün qəlibləri, ideoloji-siyasi sədləri aşaraq ana dilimizdə səlist çıxış edən Heydər Əliyev milli təfəkkür və iradənin daşıyıcısı, əzmkar müdafiəçisi olduğunu nümayiş etdirmiş, xalqın özünəməxsusluğunun ifadəsinə çevrilmiş dövlətçilik rəmzlərinə və atributlarına həssas münasibətini ortaya qoymuşdur. Ulu öndər həmin dövrdə rəsmi nitqlərinin böyük əksəriyyətini Azərbaycan dilində edir, bunu bütün rəhbər vəzifəlilərdən də qətiyyətlə tələb edirdi. 1978-ci ildə Azərbaycan SSR-nin konstitusiya layihəsi qəbul edilərkən, ulu öndərin Azərbaycan dilinin bu ali sənəddə dövlət dili kimi təsbitlənməsi və qorunub saxlanması sahəsində nümayiş etdirdiyi prinsipialığı da bunu bir daha təsdiqləyir.

Çoxsaylı faktlar göstərir ki, ulu öndər Heydər Əliyev millətinin gələcəyini düşünən böyük lider olaraq bütün şüurlu həyatını canından artıq sevdiyi Azərbaycanın tərəqqisinə, inkişafına həsr etmişdir. Tarixin ən sərt dolanbaclarından, çətin sınaqlarından keçməklə əxz etdiyi milli dövlətçilik ənənələrini məhz Heydər Əliyevin rəhbərliyi altında vahid sistem halına salaraq özünütəsdiq imkanı qazanmış xalqımız eyni zamanda, davamlı milli inkişaf yolunu müəyyənləşdirmişdir. Bu fenomen şəxsiyyət ən çətin və mürəkkəb siyasi situasiyalarda nümayiş etdirdiyi qətiyyət, iradə və prinsipiallıqla çağdaş tariximizin şanlı səhifələrini yazmış, xilaskarlıq missiyasını üzərinə götürmüşdür. Ötən əsrin 70-80-ci illərindən respublikada milli müstəqilliyə etibarlı zəmin

yaradan sosial-iqtisadi, hüquqi və mənəvi-intellektual mühit formalaşdıran ulu öndər Heydər Əliyev məhz bu möhkəm bünövrə üzərində azadlıq, istiqlaliyyət və müstəqillik ideallarına qovuşmasını təmin etmişdir.

Hər bir dövlətin mövcudluq tarixində çətin, milli müstəqilliyini itirmək təhlükəsi ilə üzləşdiyi məqamlar olmuşdur. Fəqət, ən ekstremal siyasi şəraitdə millətin iradəsini və niyyətlərini, dövlətin diplomatiya və strategiyasını, cəmiyyətin həmrəyliyini və konsensusunu birləşdirməyə qadir şəxsiyyətin sayəsində bu dövlətlər tab gətirərək öz varlığını davam etdirmiş, millətlər isə dirçəlmişdir. 1991-ci ilin 18 oktyabrından 1993-cü ilin iyun ayınadək cərəyan edən xaotik və gərgin proseslər təsdiqlədi ki, yalnız dəmir iradəyə, fitri idarəçilik keyfiyyətlərinə, geniş siyasi dünyagörüşünə malik xarizmatik lider Azərbaycanın dövlət müstəqilliyini qorumaq və yaşatmaq kimi ağır missiyanın öhdəsindən gələ bilər.

1991-1993-cü illərdə respublikamızda cərəyan edən mürəkkəb proseslər – siyasi böhranın, anarxiya mühitinin dərinləşməsi, xalqın canı, qanı bahasına əldə etdiyi dövlətçiliyin itirilməsi təhlükəsinin yaranması bu reallığı bir daha təsdiqlədi ki, yalnız böyük dəstəyə malik liderlər xalqlarının müstəqilliyinə etibarlı təminat yarada, onu qoruyub saxlaya bilərlər. Ulu öndər Heydər Əliyev belə nüfuzlu şəxsiyyət olaraq özünün parlaq zəkası ilə Azərbaycanı olduqca mürəkkəb zamanın dalğaları arasından salamat çıxarıb ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırmışdır. Böhranlı bir dövrdə – 1993-cü ilin iyununda xalqın çağırışına cavab verərək hakimiyyət sükanına keçən ümummilli lider respublikamızı üzləşdiyi bir çox faciələrdən qurtarmış, müdrik və uzaqgörən addımları ilə onu davamlı, sabit inkişaf yoluna çıxarmışdır. Heydər Əliyevin Ali Sovetin sədri seçildiyi günün – 15 iyun tarixinin Qurtuluş salnaməsi kimi qeyd olunması da tarixi proseslərin obyektiv məntiqindən irəli gəlmişdir.

Ulu öndərin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra irəli sürdüyü dövlətçilik konsepsiyası mahiyyət etibarilə Azərbaycanın tarixi ənənələrini və müasir Avropa dəyərlərini birləşdirən yeni inkişaf modeli kimi özünü doğrultmuşdur. İctimai-siyasi sabitliyi və sosial-iqtisadi inkişafı bu modelin əsas dayağına çevirən Heydər Əliyev cəmiyyətdə dayanıqlı milli birliyə nail olmaq üçün hər şeydən öncə, insan hüquq və azadlıqlarının maksimum təminatı məsələsinə xüsusi diqqət yetirmişdir. Ulu öndər özünəməxsus müdrikliklə bəyan etmişdir ki, siyasi sabitlik yaratmadan yeni idarəetmə sisteminə keçidi reallaşdırmaq, bazar iqtisadiyyatı və demokratiya kimi fundamental prinsiplərin tətbiqinə nail olmaq mümkün deyildir. Heydər Əliyev Azərbaycanda milli dövlətçiliyin prioritet inkişaf istiqamətlərini müəyyənləşdirərkən xalqın milli mentalitetinin səciyyəvi cəhətlərini də nəzərə almışdır.

Ulu öndər Heydər Əliyev özünün zəngin iqtisadi bilik və təcrübəsi əsasında Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirmiş, bu sahədə mövcud problemlərin həlli yollarını elmi-nəzəri və praktiki əsasda göstərmişdir. Ümummilli lider mərkəzi planlaşdırma və bölgü prinsiplərinin hakim olduğu ictimai-iqtisadi formasiyadan azad bazar iqtisadiyyatına optimal keçid modelini özünəməxsus entuiziazmla irəli sürmüş, onun həyata keçirilməsinə çalışmışdır. Demokratik inkişaf yolu ilə irəliləyən Azərbaycanda da bazar iqtisadiyyatı prinsipləri – xüsusi mülkiyyətçilik, azad sahibkarlıq fəaliyyəti, özəlləşdirmə, qeyri-neft sektorunun, sənayenin inkişafı və sosial infrastrukturun yeniləşdirilməsi prioritet seçilmişdir. İqtisadi sahədə həyata keçirilən islahatların əsasında bazar iqtisadiyyatının formalaşdırılması yolu ilə ümimi daxil məhsul istehsalını artırmaq, qeyri-neft sektorunun sürətli inkişafını təmin etmək məqsədi dayanmışdır.

Azərbaycanın yeni neft strategiyasının hazırlanaraq həyata keçirilməsi də ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindən biridir. 1994-cü ilin 20 sentyabrında "Əsrin müqaviləsi"nin imzalanmasının milli inkişafdakı misilsiz əhəmiyyəti bügünkü intensiv sosial-iqtisadi inkişaf fonunda daha qabarıq görünür. Ölkəmizə son 10 ildə böyük uğurlar gətirən neft strategiyasının əsas mahiyyəti respublikanın malik olduğu təbii sərvətlərdən Azərbaycan xalqının rifahı naminə daha uğurlu şəkildə istifadə etməyə əsaslanır. Bu strategiyanın həyata keçirilməsi iqtisadi maraqlarla yanaşı, milli təhlükəsizlik maraqlarının təmin olunmasına yönəlmişdir. Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu uğurlu neft strategiyası təkcə dövlətin iqtisadi maraqlarının realizə olunmasına deyil, paralel olaraq dövlət müstəqilliyinin möhkəmləndirilməsinə yönəlik siyasi xəttin yürüdülməsinə, buna uyğun əlverişli situasiyanın formalaşdırılmasına xidmət edir.

Ümummilli lider hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu məsələsini də daim diqqət mərkəzində saxlayaraq bu istiqamətdə mühüm islahatlar həyata keçirmişdir. Heydər Əliyev böyük siyasət ustadı olaraq hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü nitqlərində hər zaman vurğulamış, vətəndaşlara göstərilən hüquqi yardımın səviyyəsinin müntəzəm surətdə artırılmasının əsas təşəbbüskarı kimi çıxış etmişdir. Ulu öndərin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipinin, demokratik-hüquqi və

dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarının, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir. Demokratik tələblərə tamamilə cavab verən bu ali sənəd müstəqil Azərbaycanın ilk Konstitusiyası kimi tarixilik qazanmışdır.

Heydər Əliyev dövlətçilik irsinin əsas istiqamətlərindən biri də dövlətin milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması sahəsində kompleks tədbirlərin görülməsidir. Ölkənin hərbi qüvvələrinin yaradılması dövlətçiliyin əsas atributu və qarantı hesab olunsa da, təəssüf ki, SSRİ dağıldıqdan sonra Azərbaycanda hakimiyyəti ələ keçirməyə müvəffəq olmuş qüvvələrin səbatsız siyasəti nəticəsində bu amil dövlətçilik üçün təminata deyil, təhlükəyə çevrilmişdi. Ordu quruculuğunda və ölkənin milli təhlükəsizlik sisteminin formalaşdırılmasında yol verilən kobud səhvlər son nəticədə ölkədə qanunsuz hərbi birləşmələrin timsalında vətəndaş müharibəsinin subyektlərinin meydana çıxmasına səbəb olmuşdu. Ordunun siyasiləşməsi, dövlətçilik prinsiplərinə əsasən deyil, şəxsi siyasi maraqlara nəzərən formalaşdırılması sonda Azərbaycanın müstəqilliyi üçün ciddi təhlükə mənbəyi idi. Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gəldikdən sonra bu tendensiyaya qarşı ciddi mübarizə aparmış, dövlətin milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təminatçısı funksiyasını yerinə yetirən sabit və güclü silahlı qüvvələrin yaradılmasına nail olmuşdur.

Ümummilli lider hakimiyyətdə olduğu müddətdə Azərbaycan cəmiyyətinin vahidliyini, bütövlüyünün təmin olunmasını özünün strateji vəzifəsi saymışdır. Ulu öndər cəmiyyətin vahidliyini təmin edərək, onun müxtəlif istiqamətlər – sosial bərabərsizlik, regional faktor, dini və milli mənsubiyyət amili baxımından parçalanmasına imkan verməmişdir. Bu, Azərbaycan dövlətçiliyinin yaşaması, inkişaf etməsi baxımından ən düzgün seçim idi və ötən illərin reallıqları da bunu təsdiqləmişdir. Heydər Əliyev şəxsiyyəti bütün sistem və ölçülərin, ictimailəşmiş qəliblərin fövqündə dayansa da, bu ucalıq onun böyük dövlət xadimi, görkəmli ictimai-siyasi xadim və bunlardan da əvvəl – Böyük Azərbaycanlı olması faktını qətiyyən istisna etmir. “Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam” – deyən böyük strateq azərbaycanlılara xas gözəl nə varsa, onların hamısını öz parlaq simasında bir araya gətirmişdir. Şəxsiyyətinin böyüklüyü və miqyası kimi daha iri ölkələrə rəhbərlik etmək imkanında olan Heydər Əliyev Azərbaycan adlı qədim diyarı az qala, qarış-qarış gəzərək, rəhbər kimi onun hər bölgəsinə silinməz izlər salmış, sağlığında xalq üçün gördüyü nəhəng işlərlə özü-özünü əbədiləşdirmişdir.

Ümummilli lider Heydər Əliyev hələ 70-80-ci illərdə respublikada formalaşdırmış zəngin elmi-intellektual potensiala istinad edərək özünün təkmil təhsil konsepsiyasını irəli sürmüş, milli tərəqqi baxımından strateji əhəmiyyət daşıyan bu sahənin problemlərini xüsusi diqqət mərkəzində saxlamışdır. Bu böyük şəxsiyyətin Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri eyni zamanda, ciddi təmələ əsaslanmaqla həyata keçirdiyi fəal maarifçilik siyasətində parlaq surətdə təcəssümünü tapır. Ulu öndər Heydər Əliyev Azərbaycan təhsilinin milli əsaslar üzərində çağdaş dünya təhsil sisteminə inteqrasiyasını başlıca vəzifə kimi aktuallaşdırmış, elm-təhsil sahəsində mütərəqqi islahatları ardıcıllıqla həyata keçirmişdir. Böyük strateq milli təhsil sistemində islahatların təkamül yolu ilə aparılması tərəfdarı kimi çıxış etmiş, bu mövzuda ictimai müzakirələrin açılmasına nail olmuşdur. “Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri, tədrici dəyişikliklər xarakteri daşıyır… Təhsil Qanunu elə bir qanundur ki, təhsil islahatları elə islahatlardır ki, iqtisadiyyatdan, maliyyədən, başqa sahələrdən fərqli olaraq, bunda bütün cəmiyyətin iştirakı lazımdır” – deyən ulu öndər Heydər Əliyev bu məsələyə böyük həssaslıqla yanaşdığını göstərmişdir.

Ölkəmizdə elmə, təhsilə, yüksək ixtisaslı kadrların hazırlanması məsələlərinə daim ciddiliklə yanaşmış ulu öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi dövründə də bu mütərəqqi ənənəyə sadiqlik nümayiş etdirmişdir. Ümummilli lider vaxtilə məzunu olduğu Bakı Dövlət Universitetini də unutmamış, ilk gündən bu ali təhsil müəssisəsinin üzləşdiyi problemlərin həllini diqqətdə saxlamışdır. Ulu öndərin dəfələrlə universitetə gəlişi bu böyük təhsil müəssisəsinə sanki yeni həyat vermiş, çətinliklərə rəğmən onu yeni dövrün tələbləri səviyyəsində kadr hazırlığına sövq etmişdir. Heydər Əliyev BDU-ya olan rəğbətini büruzə verməklə yanaşı, bu ali təhsil ocağının qarşısında bir sıra məsul vəzifələr müəyyənləşdirmişdir. BDU daim dünya şöhrətli məzununun xüsusi qayğısını hiss etmiş, onun qarşıya qoyduğu ali ideyalar universitetin tələbə və professor-müəllim heyətinin əsas fəaliyyət stimulvericisinə çevrilmişdir. Bakı Dövlət Universitetinin ən zəngin, məzmunlu tarixinin şərəfli səhifələri məhz Heydər Əliyevin böyük diqqət və qayğısı sayəsində yazılmışdır. Ən azı o səbəbdən ki, universitet təhsildə də, elmin inkişafında da, maddi bazanın möhkəmləndirilməsi, yeni ixtisasların açılması sahəsində də ən möhtəşəm nailiyyətlərini məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə qazanmışdır.

Ümummilli liderin müəyyən etdiyi inkişaf strategiyasını son illərdə uğurla reallaşdıran Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə, onun xalqına, dövlətinə necə bağlı lider olduğu bir daha təsdiqini tapır. Dövlət başçısı zaman etibarilə qısa, mahiyyətcə böyük 5 illik dövr ərzində yeni əsrin lideri kimi sübuta yetirdi ki, xalq öz taleyini ona etibar etməkdə qətiyyən yanılmamışdır. Dövlət başçısının idarəçilik keyfiyyətlərindən ən mühümü, şübhəsiz, uzun illər boyu zərrə-zərrə formalaşaraq sabitləşmiş milli dövlətçilik ənənələrinə sadiqlikdir. Cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində son illər əldə etdiyimiz uğurlar da elə bu amilə əsaslanır.

Siyasi illüziyalardan, populizmdən uzaq olması, problemlərə rasional mövqedən və real situasiyadan yanaşması, gerçəkliyi təhrif etməməsi, praqmatizmi cənab İlham Əliyevin yetkin və peşəkar siyasətçi portretini formalaşdırır. Bütün bu keyfiyyətləri dövlət başçısının malik olduğu yüksək qətiyyət, intellekt, enerji, potensial, işgüzarlıq, novatorluq və birləşdiricilik məziyyətləri tamamlayır. Milli maraqları və mənəvi dəyərləri ümumbəşəri ideallarla ahəngdar şəkildə uzlaşdırmaq bacarığı, intellektual səviyyə, universal bilik və akademik təhsil, dəmir məntiq və möhkəm iradə – bütün bunlar cənab İlham Əliyevin yetkin siyasi obrazını şərtləndirir.

Azərbaycanda ictimai-siyasi sabitliyin, vətəndaş sülhü və həmrəyliyinin qorunub saxlanılması naminə ilk gündən nümayiş etdirdiyi yüksək prinsipiallıq, qətiyyət və əzmkarlıq da dövlət başçısının istənilən ekstremal situasiyada çevik və optimal qərar qəbul edən qətiyyətli lider olduğunu göstərmişdir. 2003-cü ilin postseçki mərhələsi nihilist, radikal və ziddiyyətli siyasiləşmə ilə müşayiət olunsa da, cənab İlham Əliyev siyasi iradə göstərərək bu neqativ meyillərin qarşısını əzmkarlıqla almış, ölkənin yenidən xaos və anarxiya mühitinə yuvarlanmasına yol verməmişdir. Seçki ərəfəsində və sonra respublikada ictimai-siyasi sabitlik, dövlətçilik əleyhinə yönəlmiş xarici və daxili təzahürlərin qətiyyətlə aradan qaldırılması dövlət başçısının xalqın dəstəyinə arxalanan, dövlətçiliyin müdafiəsi üçün zəruri keyfiyyətlərə malik lider olduğunu sübuta yetirmişdir.

Əsl liderlik, şübhəsiz, xalq kütlələrini milli məram və məqsədlər ətrafında birləşdirmək bacarığında ifadə olunur. Bu nöqteyi-nəzərdən Azərbaycan Prezidenti İlham Əliyevin liderlik xüsusiyyətləri onun ideyalarının inteqrativ-birləşdirici mahiyyətindən, ilk növbədə, hər bir vətəndaşın maraqlarına hesablanmasından irəli gəlir. Dövlət başçısının milli birlik və həmrəylik konsepsiyası dərin məzmun yükü ilə cəmiyyətin mənəvi bütövlüyündə və monolitliyində aparıcı amilə çevrilməkdən savayı, həm də ona xalqı öz ətrafında birləşdirmək, milli ideallar ətrafında səfərbər etmək imkanı vermişdir. Cənab İlham Əliyev səlahiyyətlərinin icrasına başladığı ilk gündən cəmiyyətin bütün siyasi qüvvələrinin, sosial qruplarının, dini-etnik konfessiyalarının birliyini təmin etmək istiqamətində ardıcıl siyasət yürüdür.

Dövlət başçısı İlham Əliyev daxildə möhkəm ictimai-siyasi sabitliyə, qanunçuluğa, effektiv sosial-iqtisadi islahatlara nail olmadan, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunda kompleks addımlar atmadan xarici siyasət sahəsində hansısa uğurlu nəticələr əldə etməyin qeyri-mümkünlüyünü aksiom kimi önə çəkir. Ölkə Prezidentinin yeritdiyi uğurlu diplomatiya sayəsində dünya siyasətinə təsir imkanları getdikcə artan Azərbaycanın bütövlükdə Avratlantik coğrafi arealında sülh, tərəqqi və əməkdaşlıq paytaxtına, beynəlxalq miqyaslı enerji-kommunikasiya layihələrinin lokomotivinə çevrildiyi getdikcə daha qabarıq sezilir. Azərbaycan sülh və əməkdaşlıq paytaxtı kimi tanınmağa başlayır və belə bir müsbət imicin formalaşmasında cənab İlham Əliyevin təşəbbüsü ilə respublikamızda keçirilən beynəlxalq toplantıların əhəmiyyətini xüsusi vurğulamaq lazımdır.

Azərbaycan Prezidenti İlham Əliyev dövlətçilik konsepsiyasını məhz ulu öndər Heydər Əliyevin müəllifi olduğu strateji kurs üzərində formalaşdırır və onu yeni dövrün tələblərinə uyğun zənginləşdirməyə çalışır. Xalqı Heydər Əliyev ideyaları ətrafında birləşdirir, özünü azərbaycanlı sayan, bu mənsubiyyətdən qürur duyan hər kəsi ulu öndərin yarımçıq qalmış arzularının, ideyalarının həyata keçirilməsi istiqamətində səfərbər edir.

Dövlət başçısı İlham Əliyev son beş ildə ölkə həyatının bir çox strateji əhəmiyyətli sahələri kimi, təhsilə, elmə də xüsusi qayğı ilə yanaşmış, bu istiqamətlərdə yeni dövrün tələbləri ilə səsləşən islahatların həyata keçirilməsini təmin etmişdir. Azərbaycan Prezidentinin 4 may 2009-cu il tarixli “Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya”nın və “Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında sərəncamı Azərbaycan elminin inkişafı və problemlərinin həlli baxımından fundamental əhəmiyyətli sənəddir.

Cənab İlham Əliyev elmlə yanaşı, ali təhsil sistemində islahatların aparılmasını, bu sistemin Bolonya prosesinə uyğunlaşdırılmasını, ümumiyyətlə, həmin sahədə qarşıda duran problemlərin həlli baxımından son illərdə bir sıra mühüm fərman və sərəncamlar imzalamışdır. Azərbaycan Prezidentinin “2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi barədə”

22 may 2009-cu il tarixli sərəncamı ali təhsil sistemində islahatların keyfiyyətcə yeni mərhələdə uğurla davam etdirilməsini təmin edəcəkdir.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Prezidenti İlham Əliyev ulu öndər Heydər Əliyevin ideyalarına sadiq qalaraq daim Bakı Dövlət Universitetinin davamlı inkişafına xüsusi diqqət və qayğı ilə yanaşır. Dövlət başçısının 24 aprel 2009-cu il tarixdə BDU-nun 90 illik yubileyinin keçirilməsi ilə bağlı sərəncam imzalaması da məhz bunun bariz təcəssümüdür. Həmin sərəncam müsəlman Şərqində ilk Avropa tipli ali təhsil ocağı olan BDU-nun milli kadr hazırlığındakı müstəsna yeri və roluna verilən yüksək qiymətdir. Dövlət başçısının sərəncamında da vurğulandığı kimi, Azərbaycanın simasını müəyyən edən dövlət, elm və mədəniyyət xadimlərinin böyük bir qismi məhz Bakı Dövlət Universitetinin yetirmələridir. Xalqın milli sərvətinə çevrilən universitet bu gün dövlət idarəçiliyi, iqtisadiyyat, elm, təhsil və mədəniyyətin müxtəlif sahələrində uğurla çalışan çoxsaylı məzunları ilə müstəqil Azərbaycanın inkişafına töhfələrini əsirgəmir.

Azərbaycan tarixinin ən yaddaqalan siması olan Heydər Əliyevin qeyri-adi irsi isə olduqca zəngin və əhatəlidir. İllər keçdikcə artıq bəşəri sərvətə çevrilən bu irsin əhəmiyyətini daha çox dərk edir, sehrinə daha çox düşür, vətəni necə sevmək, xalqa necə xidmət etmək nümunəsi olan şəxsi həyatını və fəaliyyətini örnək kimi qəbul edirsən. Bakı Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələri ulu öndər Heydər Əliyevin bu ali təhsil ocağının layiqli yetirməsi, məzunu olması ilə daim qürur duyur, hər addımda onun dəyərli ideyalarına istinad edir, eyni zamanda, Heydər Əliyev siyasi kursunu inamla davam etdirən cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın daha böyük uğurlar qazanacağına, daha qüdrətli ölkəyə çevriləcəyinə ürəkdən inanır.

**“Azərbaycan“.-**2009.-11 iyun.-N 125.-S.2.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MÜDRİK SİYASƏTİ DAİM AZƏRBAYCANIN MİLLİ MƏNAFELƏRİNƏ XİDMƏT ETMİŞDİR

**Firudin CÜMŞÜDLÜ,**
ADPU-nun Azərbaycan tarixi kafedrasının dosenti

**Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda hökm sürən qeyri-sabitlik və hakimiyyət böhranı ermənilərin bütün cəbhə boyu hərbi əməliyyatlara başlamasına imkan yaradırdı. Məhz belə bir şəraitdə Azərbaycan torpaqlarının bir hissəsi düşmən tərəfindən işğal olundu. Silahlı dəstələrin Laçın ərazisindən çıxarılmasını gözləyən erməni daşnak birləşmələri böyük qüvvə ilə hücuma keçərək 1992-ci il mayın 18-də alınmaz qala olan Laçını işğal etdilər. Beləliklə, Dağlıq Qarabağ separatçıları ilə Ermənistan dövləti arasında birbaşa əlaqə dəhlizi yarandı.**

Artıq Azərbaycan xalqının çox hissəsi Azərbaycan Xalq Cəbhəsinin məqsədinin nəyə xidmət etdiyini gördü və cəbhəçilərdən əlini üzməyə başladı. Azərbaycan xalqı hadisələrin belə bir axarında Heydər Əliyevin xalqı, ordunu bir yerə yığmasını, ağıllı, diplomatik səyləri sayəsində erməni silahlı qüvvələrinin basqınlarının qarşısını almasını böyük ümidlə, səbirsizliklə gözləyirdi. 1992-ci ilin mayın ilk günlərində Naxçıvan Muxtar Respublikasında, eləcə də Azərbaycanın Ermənistanla sərhəd bölgələrində vəziyyət yenidən pisləşmişdi. Erməni faşist ordu birləşmələri onlara arxadan-Naxçıvan ərazisindən hücum başlanacağından ehtiyatlanaraq və Azərbaycanda yaranmış özbaşınalıqdan istifadə edərək yeni əraziləri işğal etmək üçün səy göstərirdilər. Erməni quldur dəstələri mayın 18-də Naxçıvanın Sədərək, Havus, Yuxarı Buzqov, Sada, Biçənək və s. kəndlərinə böyük qüvvə ilə hücuma keçdilər. Düşmən hətta bu ərazilərdə zəhərli kimyəvi silahdan da istifadə edirdi. Sədərək ətrafında baş verən qanlı döyüşlər 40 gün davam etdi.

Bu vaxtlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev erməni işğalçılarının basqınlarının qarşısını almaq üçün diplomatik bacarığından məharətlə istifadə edə bildi. Onun martın 23-də Türkiyəyə səfəri zamanı Süleyman Dəmirəl bütün dünyaya bildirmişdi ki, Naxçıvanın statusunda bir dəyişiklik yaranarsa, bağlanmış müqaviləyə görə, Türkiyə öz sözünü deyəcəkdir. Mayın 18-də Türkiyə Nazirlər Kabineti ətraflı bir bəyanat qəbul etdi. Heydər Əliyevin və Türkiyə dövləti başçılarının birgə səyləri nəticəsində erməni işğalçılarının məqsədləri dünya ictimaiyyətinə çatdırıldı. Nəticədə dünyanın 57 ölkəsi təcavüzü lənətlədi, NATO xüsusi bəyanat verdi. Rusiya Federasiyası öz niyyətindən əl çəkdi. Mayın 24-də işğalçı Ermənistan dövlətinin təklifi ilə danışıqlar aparıldı və dinclik yaradıldı.

1992-ci il iyulun 7-də Azərbaycanda prezident seçkiləri keçirildi. AXC sədri Ə. Elçibəy seçkilərdə qalib gəldi. Lakin hakimiyyəti ələ keçirmiş, ölkədə dövləti idarə etmək təcrübəsi olmayan adamlar üçün bu qələbə deyil, böyük məğlubiyyətin, süqutun əsası idi. Azərbaycan hakimiyyətində Xalq Cəbhəsi tezliklə Müsavat qüvvələri ilə əvəzləndi. Hakimiyyətdə fəallıq göstərən şəxslər onu möhkəmləndirə və xalqın mənafeyi üçün heç bir şey edə bilmədilər. Əslində bu qüvvələrə heç möhkəm dövlət də lazım deyildi. Artıq 1993-cü ilin ikinci yarısında Azərbaycanda 30-a qədər siyasi partiya, cəmiyyət və hərəkat fəaliyyətdə idi. Təşkilatlar arasında sıx birlik və bərabər hərəkat planı tamamilə pozulmuş, güclü fikir ayrılığı yaranmışdı. Həmin dövrdə AXC – Müsavat cütlüyü xalq arasında hər an nüfuzu güclənən Heydər Əliyevə qarşı sərt mövqelərini artırırdılar. 1991-ci ilin dekabrından Naxçıvana qaz, 1992-ci ilin iyulundan isə elektrik enerjisinin verilməsini dayandırmışdılar. 1992-ci ilin aprelindən bu əraziyə qatarların hərəkəti də qadağan edilmişdi. Naxçıvan mühasirəyə alınmışdı. Bütün bunlara baxmayaraq, Heydər Əliyev çətin şəraitdə Naxçıvan Muxtar Respublikasının idarə edilməsini cəsarətlə həyata keçirirdi. Xalq aclığa, 40 dərəcə şaxtaya dözə bildi. Heydər Əliyev 1992-ci il martın 22-25-də Türkiyə dövlətinin dəvəti ilə bu ölkəyə səfər etdi. Qardaş dövlətin başçıları ilə danışıqlar apardı. Türkiyə dövləti Naxçıvana 100 min dollar kredit verdi.

Tez bir vaxtda İqdır-Naxçıvan elektrik xətti işə düşdü. Sədərək – Türkiyə yolu tikilib istifadəyə verildi. ” Türksat ” rabitə şirkəti muxtar respublikanın Bakı ilə telefon əlaqəsini işə saldı. Hər iki dövlət arasında 1992-ci ilin mayın 28-də Sədərək-Dilucu 228 metrlik “Ümid körpüsü” tikilib istifadəyə verildi. Həmin ilin martında yeni hava limanının birinci növbəsi işə düşdü.

1992-ci il avqustun 22-26-da İran İslam Respublikasının dövlət başçısının dəvəti ilə Heydər Əliyev Tehrana səfər etdi. Qonşu dövlət başçıları ilə danışıqlar aparıldı. Hər iki dövlət arasında müştərək bazarlar açıldı. Naxçıvana İrandan elektrik enerjisi verildi. Beləliklə də, Heydər Əliyevin diplomatik bacarığı nəticəsində muxtar respublikanın nəqliyyat, enerji blokadasına son qoyuldu.

AXC, eləcə də Müsavat başçıları Naxçıvan Muxtar Respublikasında çevriliş etməyə, qeyri-demokratik yolla Xalq Cəbhəsini hakimiyyətə gətirməyə çalışırdılar. 1992-ci ilin oktyabrın 24-də burada Xalq Cəbhəsinin silahlı dəstələri Daxili İşlər Nazirliyini, televiziya şəbəkəsi binalarını tutaraq hakimiyyətə qarşı bəyanatla çıxış

etdilər. Əhalinin çox böyük bir hissəsi onlara qarşı qalxdı. Az vaxtda 50 mindən çox insan Heydər Əliyevin müdafiəsinə qalxaraq Ali Məclis binasının qarşısına yığışdı. Xalq silahlı cəbhəçiləri dövlət təşkilatlarından qovub çıxardı.

O zamankı iqtidar başçıları Naxçıvanın statusunu ləğv etməyə çalışır, bunun üçün əllərindən gələni edirdilər. Bütün bunlar Naxçıvanın muxtariyyət statusunu müəyyən edən Moskva (1921-ci il 16 mart) və Qars (1921-ci il 13 oktyabr) beynəlxalq müqavilələrinə, eləcə də 1969-cu il Vyana konvensiyası tələblərinə zidd idi. Heydər Əliyev Türkiyədə olarkən Moskva və Qars müqavilələrinin əsas prinsiplərinin qüvvədə olduğunu bütün dünyaya çatdırdı. Xalqın rəhbərə olan inamı və ümidi daha da artdı. AXC-nin isə daxildəki hakimiyyət davası parçalanmaya gətirib çıxardı. 1992-ci il avqustun 5-də Azərbaycan Silahlı Qüvvələri Başkəndi tutdular. Erməni hərbi birləşmələri öz qüvvələrini birləşdirərək əks-hücuma keçdilər. Ermənistandan çoxlu sayda canlı qüvvə, texnika gətirildi. Erməni birləşmələri iyulun ikinci yarısında Ağdərə rayonunun Maqavuz və Orataq kəndlərini işğal edib Sərsəng su anbarını ələ keçirə bildilər. Erməni quldurları sentyabrın əvvəllərində Ağdam istiqamətində Abdal-Gülablı, Xromot, Dəhraz, Ağbulaq, Araizəmin, Pircamal, Naxçıvanik, Qaraşlar, Qazança və Bəşirlər kəndlərini işğal etdilər. Sentyabrın 23-də hərbi hissələrimiz Xocavənd yaxınlığında erməni işğalçılarına sarsıdıcı zərbələr endirdilər. 1992-ci il oktyabrın ilk günlərində Qubadlı tərəfdən Laçına yeridilən silahlı qüvvələrimiz Suqra, Xannaqır, Dəhyan, Cəfərabad, Mıxdərəsi, Mazutlu, Fətəlitəpə, Malxələf kəndlərini işğalçı ermənilərdən azad etdilər. Lakin hərbi rəhbərlikdə Rusiya meyilli şəxslərin təxribatı artdı, hücum dayandırıldı. Ə. Hümbətov oktyabrın 5-də tank briqadasını geri çəkdi. Əldə olunmuş mövqelər yenidən erməni ordularının əlinə keçdi.

Erməni işğalçıları oktyabrın 12-də Hadrut istiqamətindən böyük qüvvə ilə Qubadlının Toraqaç-Düzyurd yüksəkliyinə basqın etdilər və bu ərazilər tutuldu. 16 günlük döyüşdən sonra isə yüksəklik ermənilərdən geri alındı. Dekabrın 10-da Ermənistan silahlı dəstələri Qubadlı, Zəngilan ərazilərinə soxuldular, bir neçə kəndi işğal edib yandırdılar.

Artıq Azərbaycan hərbi hissələri öz qüvvəsini saxlaya bilmir, hərbi texnika pis vəziyyətə salınırdı. Ordu, demək olar ki, yox idi. 1992-ci ilin sonu – 1993-cü ilin başlanğıcında respublikanın müdafiə naziri R. Qazıyevin təkidi ilə döyüşlər başlandı və böyük məğlubiyyətlərə gətirib çıxardı. 1993-cü il yanvarın 26-da Fərrux yüksəkliyi ətrafında gedən savaş öz miqyasına görə Qarabağ müharibəsində ən böyük döyüşlərdən biri oldu. Döyüşlərdə Azərbaycan silahlı dəstələri məğlub oldular və itki verib geri çəkildilər.

Azərbaycanda dövlət çevrilişi etməyə hazırlıq məqsədilə korpus komandiri Surət Hüseynov 1992-ci ilin dekabrında qüvvələrini Kəlbəcərin strateji yüksəkliklərindən geri çəkdi. Bundan əlavə o, 1993-cü il yanvarın 28-də Ağdərə bölgəsindən də hərbi texnikanı çıxarıb Gəncəyə göndərdi.

1993-cü il fevralın 5-nə keçən gecə Ermənistan ekspedisiya korpusu Rusiyanın 7-ci ordusunun 128-ci motoatıcı alayı və kazaklardan ibarət silahlı dəstənin iştirakı ilə Ağdərə istiqamətində hücuma keçdi. Fevralın 15-dən 16-na keçən gecə Ağdərə-Kəlbəcər yolu düşmən ordusunun nəzarətinə keçdi.

Respublikanın hərbi sahələrində baş verən uğursuzluqların davam etdiyi bir vaxtda müdafiə naziri R. Qazıyev və korpus komandiri S. Hüseynov vəzifələrindən uzaqlaşdırıldılar. Onların təsirindən qurtara bilməyən hərbi hissələr Müdafiə Nazirliyinə tabe olmaqdan imtina etdilər. Erməni faşistləri yaranmış vəziyyətdən istifadə edərək 1993-cü il martın 10-dək Ağdərə ərazisinin bir çox yaşayış məntəqələrini işğal etdilər. Martın 20-dən Ermənistan Ağdərə tərəfdən Kəlbəcəri atəşə tutdu. Rayonun müdafiəsi təşkil olunmamış, hərbi bölmə və texnikanın bir hissəsi ərazidən çıxarılmışdı. Bu bir tərəfdən satqın ordu komandirlərinin imperiyapərəst qüvvələrə nökərçiliyi, digər tərəfdən də respublika rəhbərliyinin Kəlbəcəri düşmənə verməklə Ermənistanı təcavüzkar bir dövlət kimi tanıtmaq cəhdi ilə bağlı idi.

1993-cü il martın 26-da Kəlbəcərin Ağdaban kəndi ikinci dəfə düşmən əlinə keçdi və yandırıldı (birinci dəfə 1992-ci il aprelin 8-də tutulmuşdu). Martın 28-də erməni təcavüzkarları mühüm strateji hündürlüyə malik Qaraqayanı ələ keçirdi. Martın 31-də Qamışlı körpü də işğal olundu. Beləliklə, Kəlbəcər tam mühasirəyə alındı. 1993-cü il aprelin 3-də isə Kəlbəcər erməni işğalçıları tərəfindən ələ keçirildi. Erməni quldurları 15 min adamı əsir götürdülər. 144 yaşayış məntəqəsi işğal olundu. 500-dən çox müəssisə, 13 min ev, şəxsi təsərrüfatlarda olan 100 min baş mal-qara, 500 min baş davar, 5 min baş at, 1 milyon ev quşu, 50 min arı ailəsi, 195 min xalça və s. ələ keçirildi.

Laçın və Kəlbəcərin ələ keçirilməsi sonrakı aylarda daha bir neçə rayonumuzun düşmən tərəfindən işğal edilməsinə imkan yaratdı. Yalnız xalqın təkidli tələbi və xahişi ilə respublika rəhbərliyinə qayıdan ulu öndər Heydər Əliyevin diplomatik səyi və uzaqgörən siyasəti sayəsində növbəti faciələrimizin qarşısı alındı, ölkədə hakimiyyət böhranına son qoyuldu, digər torpaqlarımızın düşmən işğalına məruz qalmasının qarşısı alındı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2008-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ

münaqişəsinin həll edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpasının qarşıda duran ən əsas məsələlərdən biri olduğunu önə çəkmiş, "Azərbaycan öz ərazi bütövlüyünü heç kimə güzəştə getməyəcək. Bunu hamı bilir. Biz bu mövqedən geri çəkilməyəcəyik !", – deyə vurğulamışdır.

… Beləliklə, Azərbaycan qarşısına qoyduğu bütün məqsədlərə nail olacaq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bizim xeyrimizə həll ediləcəkdir. Prezident açıq-aşkar bildirdi ki, Azərbaycanın öz torpaqlarını istənilən anda, o cümlədən hərbi yolla azad etmək, ərazi bütövlüyünü bərpa etmək üçün bütün imkanları vardır. Elə xalqımız da torpaqlarımızı düşməndən azad etmək üçün Prezident, Ali Baş Komandan İlham Əliyevin əmrini gözləyir.

Ulu öndər Heydər Əliyevin "İndi Azərbaycanın güclü ordusu var. Bizim ordumuz istənilən anda işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir!" sözləri indi də hər bir Azərbaycan vətəndaşının qulağında səslənir və hamımız o günü – Qələbə gününü səbirsizliklə gözləyirik.

"**Xalq qəzeti**".-2009.-11 iyun .- N 125 .- S. 3.

## TARİXƏ İŞIQ SALAN İNSAN

**Qərib MƏMMƏDOV,**
Dövlət Torpaq və Xəritəçəkmə
Komitəsinin sədri.

Azərbaycan öz liderini yaxşı tanıyırdı. Çünki Heydər Əliyev hələ Azərbaycana birinci dəfə rəhbərlik etdiyi (1969-1982) dövrdə özünü əsl dövlət adamı, ictimai xadim kimi gördüyü işlərlə təsdiq edə bilmişdi. Bu müdrik insan totalitar bir rejimin məngənəsində yaşamasına, işləməsinə baxmayaraq əməlləri ilə Azərbaycan xalqının gələcək xoşbəxtliyi üçün təməl qoymuşdu. Belə ki, o, 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra ilk işi olaraq 1970-ci ildə "Azərbaycan SSR-də kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında" Sov.İKP MK və SSRİ Nazirlər Soveti tərəfindən qərar qəbul etdirməyə nail oldu. Bu qərarı qəbul etdirmək həmin zaman üçün təbii ki, çox nadir hadisə hesab edilirdi. Böyük dövlət adamı, ulu öndər Sovet imperiya-sının dünyaya meydan oxuduğu, cəmiyyəti məngənədə saxladığı bir dövrdə Azərbaycan xalqının gələcək xoşbəxtliyi naminə axına qarşı getdi. 1918-ci ildə ölkəmizin birinci dəfə əldə etdiyi ilk müstəqillik dövrünün milli ideologiyasını, təfəkkürünü, milli dövlətçiliyinin əsasını yaratmaq barədə düşünməklə özünün fiziki məhvini belə göz altına almalı oldu.

Bu gün hər bir azərbaycanlı böyük məhəbbət hissilə deyə bilər ki, ulu öndər həyatının xoşbəxt anlarını Azərbaycan insanlarının işıqlı gələcəyinə həsr etməkdən qürur duyduğundan "Xalq mənə ümid bəsləyir, mən də bu ümidi doğrultmaq üçün ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və həyatımı xalqıma qurban verməyə hazıram" – deyirdi.

Bunu hər kəs yaxşı bilir ki, Azərbaycan bir dövlət kimi müstəqilliyini əldə etdikdən sonra da dağılmaq təhlükəsi ilə üzləşməli oldu. Xarici dövlətlərin kəşfiyyat idarələri, daxildəki hərc-mərclikdən istifadə etməyə çalışdı. Bir tərəfdən Azərbaycanda süni şəkildə etnik-milli qarşıdurma yaratmaq istəyən şimalda "Sadval" hərəkatının, cənubda isə qeyri-qanuni "Talış-Muğan Respublikası" elan etmiş Əlikram Hümbətovun həyata keçirmək istədiyi separatçı hərəkatı və başqa bu kimi qanunsuz əməlləri böyük uzaqgörənliklə təhlil edib müdrik bir qərara gələ bilən ulu öndər təkcə milləti, respublikamızı ölüm-dirim mübarizəsindən qurtarmadı, xalqımızın böyük əksəriyyətinin təkidli tələbi ilə hakimiyyətə ikinci dəfə gəlməklə həm də Azərbaycan xalqının mənliyini, varlığını özünə qaytara bildi. Ulu öndər ölkədə baş verən ictimai-siyasi hadisələri dərindən təhlil edərək millətin və dövlətin tarixi taleyini, xilas yolunu özünə qaytardı.

Beləliklə, Azərbaycan həyatında Milli Qurtuluş epopeyası başladı. Heydər Əliyev özünün nadir istedadına, parlaq dövlətçilik təfəkkürünə və mükəmməl milli dirçəliş konsepsiyasına əsaslanaraq ölkəni iqtisadi, siyasi böhranın cəngindən xilas edə bildi. Bu günün və çiçəklənən gələcəyin etibarlı özülünü qoydu. İndi böyük inamla demək olar ki, taleyinə min bir məhrumiyyət və əziyyət yazılmış Azərbaycan xalqı gələcəyin işıqlı günlərini yaşamaqdadır.

Ulu öndər Azərbaycana ikinci dəfə rəhbərlik etməsi ilə tarixin keçmiş dönəmlərinə qayıtmağı bacardı, xalq təsərrüfatının bütün sahələrində inkişaf üçün işıqlı yol göstərdi. Elmin bütün sahələrində uğurlar əldə edilməsində, elm adamlarına arxa-dayaq oldu. Neft sənayesinin inkişafında xarüqələr yaradılmasına öncüllük etdi. Azərbaycan torpağının, Azərbaycan xalqının oğlu olaraq o, torpağa bağlılığını sübut etməyi bacardı. Böyük öndər ölkəmizdə əldə edilən uğurlara qısqanclıqla baxanlara "Kim müxalifətdə durursa-dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına, məsləkinə müxalifətdə durmasın" deyirdi. "Suverenliyimizi daim yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq bu gün hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyi" tələb edirdi. Ulu öndər deyirdi: "Azərbaycan müstəqil dövlətdir. Azərbaycanın dövlət müstəqilliyi tarixi hadisədir, Azərbaycan xalqının tarixi nailiyyətidir. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və bizim borcumuz dövlət müstəqilliyini, əldə etdiyimiz milli azadlığı daim qoruyub saxlamaqdır. Bizim borcumuz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil, qüdrətli Azərbaycan dövləti çatdırmaqdan ibarətdir".

Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyev isə ümummilli liderimizin ideyalarını hələ bundan belə də gerçəkləşəcəyinə əminliklə inandığından deyir: "Qurtuluş Gününün Azərbaycanın müasir tarixində çox böyük rolu vardır. Məhz bu gündən etibarən Azərbaycan öz inkişaf dövrünü yaşamağa başlamışdır. Müstəqilliyimizi əldə etdikdən sonra ölkəmiz çox böyük problemlərlə üzləşmişdi. Demək olar ki, ölkəmiz idarəolunmaz vəziyyətə düşmüşdü. Məhz ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı, fəaliyyəti nəticəsində ölkəmiz bu çətin günlərdən şərəflə çıxa bildi, öz inkişaf dövrünü yaşamağa başladı. Bu inkişaf indi sürətlə davam edir".

Məhz Heydər Əliyev böyüklüyü sayəsində yenicə müstəqilliyini əldə etmiş Azərbaycan dünya sivilizasiyasının inkişaf proqramından və təcrübəsindən istifadə edərək milli iqtisadiyyatın inkişafının spesifik cəhətləri, xüsusiyyətləri və milli mentalitetimizə uyğun bütün parametrləri nəzərə alaraq yeni layihələr və dövlət proqramlarının hazırlanmasına başlanıldı.

Özəlləşmə proqramı, torpaq islahatı, hüquqi islahatlar, dövlət quruculuğu sahəsində islahatlar kursu genişləndi. Həmin islahatların həyata keçirilməsindən danışarkən ulu öndər deyirdi: "Biz islahatları bir gündə yox, bir ayda yox, bəlkə də bir ildə yox, tədricən həyata keçiririk. Çünki bunun üçün həm təcrübə lazımdır, həm də gərək səhv buraxmayasan. Biz bunları keçirdikcə Azərbaycanda idarəetmə orqanlarının işi təkmilləşir. Hesab edirəm ki, biz bunu başa çatdırandan sonra bu sahədə də ölkəmizin iqtisadiyyatı üçün daha böyük imkanlar açılacaqdır".

Heydər Əliyev yalnız Azərbaycana ikinci dəfə rəhbərliyə gəlişi ilə deyil, bütövlükdə bu böyük insan azərbaycanlı olması və yaradıcılığı ilə XX əsr Azərbaycan tarixində xalqımızı bir çox bəlalardan qurtarmaq üçün qurtuluş nöqtəsini qoymağı bacardı. Bütün dünyaya bəyan etdi ki, müstəqil Azərbaycan Respublikası yaşayacaq və demokratiya prinsipləri, insan azadlığı, demokratik iqtisadiyyat sahəsində başqa dövlətlər üçün nümunə olacaqdır.

Ulu öndərimiz Heydər Əliyev böyük uzaqgörənliklə həm də sübut etdi ki, Azərbaycanda aqrar sahədə iqtisadiyyatın inkişafının əsası aparılacaq torpaq islahatlarının nəticələrindən asılıdır.

Tarixin hökmünə bax ki, Azərbaycan Xalq Cümhuriyyəti rəhbərlərinin ölkəmizin birinci müstəqilliyində həyata keçirmək istədikləri və başa çatdıra bilmədikləri torpaq islahatları missiyasının ağırlığı da ölkəmizin ikinci dəfə müstəqillik əldə etdiyi dövrdə, ikinci dəfə ölkə rəhbərliyinə gəlmiş ulu öndər Heydər Əliyevin çiyinlərinin üstünə düşdü.

Bəlli olduğu kimi, respublikada 1995-ci ildən torpaq islahatları aparılır. Torpaq siyasəti kifayət qədər həssas bir sahə olduğu üçün çox ehtiyatlı və incə yanaşma tərzi tələb edirdi. Bu sahədə hər hansı bir kiçik səhv çox böyük problemlər yarada bilərdi. Digər tərəfdən isə Azərbaycanın nə dərəcədə mürəkkəb ictimai-siyasi və iqtisadi quruluşa malik olması heç kəsə sirr deyildir. Belə bir şəraitdə respublikada torpaq islahatlarına başlanması nə qədər vacib bir məsələ idisə, onun həyata keçirilməsi bir o qədər çətin və cəsarət tələb edən bir iş idi. Lakin bütün çətinliklərə və maneələrə baxmadan ümummilli lider Heydər Əliyev digər məsələlər kimi bu problemin də həllinə nail oldu. Belə ki, onun təşəbbüsü və rəhbərliyi ilə ümumxalq müzakirələrindən sonra torpaq islahatı proqramı hazırlandı və bu proqram əsasında torpaq islahatlarının həyata keçirilməsini təmin edən hüquqi baza yaradıldı. 150-dən çox fərman, sərəncam, qanun və digər hüquqi normativ akt respublikamızda torpaq islahatlarını həyata keçirməyə əsaslı zəmin yaratdı. Bundan sonra islahatların sürətlə həyata keçirilməsi prosesi başlandı.

Azərbaycan Respublikasının vahid torpaq fondu qanunvericiliyə müvafiq şəkildə üç mülkiyyət (dövlət, bələdiyyə və xüsusi) formasına ayrıldı. Belə ki, bu torpaq fondundan 23,5 faizi bələdiyyə mülkiyyətinə, 19,6 faizi xüsusi mülkiyyətə və 56,9 faizi isə dövlət mülkiyyətinə aid edildi.

Respublikanın kənd təsərrüfatının inkişafında mühüm nailiyyətlər əldə edilməsinə səbəb olan amillərdən biri də 1999-cu ildə ulu öndər Heydər Əliyev tərəfindən yerli özünüidarəetmə orqanı olan bələdiyyələrin yaradılması oldu. 1999-cu ilin 24 dekabr tarixində "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 237 nömrəli fərmandan irəli gələn tapşırıqların yerinə yetirilməsi də ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır.

Azərbaycanda mövcud olan 2746 şəhər, rayon və kənd bələdiyyəsindən qanunvericilik aktlarına uyğun hüquqi status almış bələdiyyələrin torpaqlarını onların mülkiyyətinə vermək üçün çöl tədqiqat işləri aparılmış, hazırlanmış sənədlər isə onlara verilmişdir.

Ulu öndərin himayəsi və uzaqgörənliyi sayəsində ölkəmizdə digər MDB ölkələrindən fərqli olaraq qorunub saxlanılan və inkişaf etdirilən sahələrdən biri də geodeziya və xəritəçəkmə sahəsi olmuşdur. Sovet dönəmində bütün dünyada məşhur olan Ross Kartoqrafiya 90-cı illərdə dağıdılarkən, bütün region ölkələri içərisində ən qabaqcıllardan biri olan Gürcüstanın xəritəçilik qurumları süqut edərkən, ulu öndər Azərbaycanın Geodeziya və Kartoqrafiya sahəsinin qorunub saxlanmasına nail oldu və hazırda ən son texnologiyalarla təchiz edilmiş müəssisələrimiz ölkəmizin xəritəçəkmə materiallarına olan tələbatını yüksək səviyyədə ödəyir.

Qeyd etmək lazımdır ki, torpaq islahatları prosesində sovet dövründən qalma yararsız xəritəçəkmə metodları islahat prosesində müəyyən neqativ halların yaranmasına səbəb olur, bəzi hallarda hətta pay veriləcək torpaq sahələri yaşayış məntəqələri ilə üst-üstə düşürdü. Ona görə də ulu öndər o zaman torpağın kəndliyə verilməsi ilə bərabər torpaq kadastr xəritələrinin yenidən işlənilməsi ilə bağlı da ciddi tədbirlər həyata keçirmək üçün göstərişlər verdi. Yaponiyadan alınan 3,2, İsveçrədən isə alınan 2 milyon dollar qrant hesabına rəqəmli xəritə və şəhər kadastrının yaradılmasına başlandı. Bu yeni texnologiyanın tətbiqi xəritəçəkmədə xətaları

minimuma endirdi. Xəritə üzərində hər nöqtənin koordinatları təsbit edilməklə təkcə inzibati xəritələr deyil, mülkiyyət növləri üzrə də xəritələr hazırlanmağa başlanıldı. Dünya Bankının ayırdığı kredit hesabına isə ölkəmizdə ortofoto, geodeziya, torpaq kadastrı və naviqasiya sahəsində görüləcək böyük işlərin təməli qoyuldu. Hazırda ölkəmiz bu sahədə postsovet məkanında birincilər sırasındadır.

Torpaq elə bir təbii cisimdir ki, onun bir santimetrini əmələ gətirmək mümkün olarsa, 300 il vaxt lazımdır. Bunu məhv etmək üçün isə çox az bir müddət yetər. Bildiyimiz kimi Azərbaycan çox az torpağı olan ölkədir. Burada adambaşına təxminən 0,18 hektar sahə düşür. İşğal olunmuş əraziləri də nəzərə alsaq bu rəqəm daha da azalar. Buna böyük uzaqgörənliklə yanaşan ulu öndər torpaqdan, torpaq ehtiyatlarından səmərəli istifadə etmək və onun mühafizəsini birbaşa təşkil etmək üçün 2000-ci il 28 noyabr tarixində "Torpaq ehtiyatlarından istifadəyə və onların mühafizəsinə Dövlət nəzarəti haqqında" fərman imzaladı. Bu fərmanın tətbiqi ilə torpaq qanunvericiliyinin pozulması hallarının qarşısı alındı. Mülkiyyət formasından asılı olmayaraq bütün mülkiyyətçilərə şamil edilmiş sənədin əsas mahiyyəti torpağı gələcək nəsillər üçün qoruması oldu. Beləliklə, ulu öndərin qayğısı sayəsində əvəzedilməz təbii tarixi cisim olan torpaqlarımızın mühafizəsi istiqamətində ciddi addım atılmış oldu.

2003-cü ildə xalqımızın mütləq əksəriyyətinin səs çoxluğu ilə hakimiyyətə gələn Heydər Əliyev dövlətçilik məktəbinin layiqli davamçısı, möhtərəm Prezident İlham Əliyev də ölkədə regionların və aqrar sektorun inkişafına xüsusi diqqət yetirməkdədir.

"Azərbaycan təkcə Bakıdan və Abşerondan ibarət deyil… Azərbaycanın hər bir regionu inkişaf etməlidir… Kənd təsərrüfatında aparılan islahatların ikinci mərhələsi başlanmalıdır" – söyləyən Prezident İlham Əliyev tərəfindən imzalanan, ölkəmizin hərtərəfli inkişafma xidmət edən **"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"** mahiyyətcə heç də torpaq islahatlarından geri qalmamaqla, insan amilinin yüksəlişinə xidmət edən təkmil strategiya kimi aktuallığını qoruyub saxlayır.

Son illər ölkəmizdə analoqu olmayan sosial-iqtisadi inkişaf göz önündədir. Təkcə Bakı şəhərində nəqliyyat vasitələrinin hərəkətinin nizama salınması məqsədilə körpü və yol ötürücülərinin inşaat işlərini layihələşdirmək üçün Bakı şəhərinin ərazisini əhatə edən aerofotoçəkiliş işləri yerinə yetirilmişdir. Aerofotoşəkillərdən istifadə edərək Komitəmiz tərəfindən Bakı şəhərinin 1:5000 miqyaslı ortofotoplanları hazırlanmışdır Həmin ortofotoplanlar məqsədyönlü istifadə üçün Nəqliyyat Nazirliyinə təqdim edilmişdir.

Bundan əlavə, körpü və yol ötürücüləri tikilməsi nəzərdə tutulan ərazilərdəki yerüstü obyektləri planda bütün xırdalıqları ilə əks etdirmək üçün 1:500 miqyaslı topoqrafiya planları da işlənib hazırlanmışdır.

Heydər Əliyev adına Hava Limanında yenidənqurma işləri aparmaq məqsədilə irimiqyaslı topoqrafiya planalma işləri yerinə yetirilmişdir ki, bu materiallardan da hava limanının və enmə-qalxma zolaqlarının beynəlxalq standartlara uyğunlaşdırılması üçün müvafiq layihələşdirmə işləri apanlmışdır.

Təyyarələrin enmə və qalxma (aeronaviqasiya) işlərinin yüksək səviyyədə təşkil edilməsi üçün hava limanında GPS (Qlobal Mövqe Müəyyənetmə Sistemi) məntəqələri qurulmuş və müvafiq müşahidə işləri də yerinə yetirilmişdir.

Möhtərəm Prezidentimiz İlham Əliyev Nazirlər Kabinetinin 2008-ci ilin doqquz ayında sosial-iqtisadi inkişafın yekunlarına həsr olunmuş iclasında bir daha Oğuz-Qəbələ-Bakı su kəmərinin böyük əhəmiyyətli iş olduğunu xüsusi olaraq qeyd edərək demişdir ki, Oğuz-Qəbələ-Bakı su kəmərinin tikintisinə başlamışıq. Hesab edirəm ki, gələn il kəmər istismara verilməlidir və Bakını təmiz su ilə təmin edəcəkdir. Samur-Abşeron su kanalı uğurla tikilir, Taxtakörpü su anbarı tikilir.

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi həmin ərazilərin aerofo-toçəkiliş işlərini uğurla yerinə yetirmişdir. Həmin aerofotoşəkillərdən və xəritə materiallarından istifadə etməklə su kəməri keçən ərazilərin dəqiq müəyyənləşdirilməsi üçün müvafiq layihə hazırlanmış və layihənin yerə göçürülməsi müasir texnologiyalara uyğun olaraq yerinə yetirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il ta-rixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" uğurla həyata keçirilməyə başlamışdır. Prezidentimiz cənab İlham Əliyev 2003-cü ildən üzü bəri ölkəmizə rəhbərlik etdiyi dövr ərzində "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı", "Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı"nın, 25 avqust 2008-ci il tarixdə Prezident İlham Əliyevin imzaladığı "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramında xüsusi olaraq tapşırılır ki, dövlət insanlarımızın ərzaqla tam təminatını ödəmək üçün 2015-ci il üçün dənli bitkilərin əkin sahələrini 900 min hektara çatdırmalı və proqramda göstərilən 2015-ci ildə 2,8 milyon ton dənli

bitkilər istehsal etməlidir. Ət istehsalı 340 min ton, süd və süd məhsulları istehsalı 2,4 milyon ton olmalıdır. Sənaye üsulu ilə illik quş əti istehsalı 80 min tona, yumurta istehsalı isə 1,3 milyard ədədə çatdırılmalıdır.

Ölkədə ikinci çörək kimi qəbul edilən kartof 1,12 milyon ton, tərəvəz və bostan bitkilərinin istehsalı 1,72 milyon ton, meyvə 800 min ton olmalıdır. Yağlı bitkilərin əkin sahələrinin 135 min hektara, şəkər çuğundurunun əkin sahəsini isə 20 min hektara, yem bitkilərinin əkin sahələrini 500 min hektar olmaqla yüksək keyfiyyətli, balanslaşdırılmış qarışıq yem istehsalını ildə 2 milyon tona çatdırmaq ayrı-ayrı bənd göstəriciləri ilə bir proqram olaraq qarşıya qoyulur.

Ölkə Prezidenti cənab İlham Əliyev ölkəmizdə Prezidentlik etdiyi dövrdə bir qayda olaraq ulu öndərimiz Heydər Əliyevin iqtisadi-siyasi kursunun layiqli davamçısı olaraq, ölkə əhalisini sosial-rifah halının, regionlarda iqtisadi inkişafın durmadan yüksəlməsi prinsiplərini qoruyub saxlaması imzaladığı bütün qanun, fərman və sərəncamlarda özünü təsdiq etməkdədir.

Azərbaycan Respublikası Pre-zidentinin 14 aprel 2009-cu il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" əslində "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci il-lər) Dövlət Proqramı"nın davamı kimi qiymətləndirilməlidir. Çünki bu Dövlət Proqramının vəzifələri və regionların prioritet istiqamətlərində əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaqdan ibarətdir.

Heç şübhəsiz ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ulu öndərimizin iqtisadi siyasi kursunun layiqli davamçısı kimi daim torpaq amilinə üstünlük verməsi zərurətindən irəli gələn 28 oktyabr 2008-ci il tarixli 709-QD nömrəli Qanunun "Bələdiyyə torpaqlarının torpaq hərracları və ya müsabiqələri vasitəsilə verilməsinin tənzimlənməsi məqsədilə Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" imzaladığı fərmanla da ümummilli liderimiz Heydər Əliyevin torpaq amilinə üstünlük verməsi, siyasi iqtisadi kursunun və ölkə əhalisinin gələcəkdə də etibarlı ərzaq təminatını təmin edən yolun davamıdır.

Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixli 80 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın Tədbirlər Planının 4.1.13-cü bəndi ilə 2009-2013-cü illərdə torpaqların texniki uçotunun elektron formatda aparılmasının, bonitirovkasının, iqtisadi qiymətləndirilməsinin və xəritələşdirilməsinin təmin edilməsi ölkə əhəmiyyətli tədbirlər sırasına aid edilmiş və bu tədbirin əsas icraçısı Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi müəyyən edilmişdir.

Məlumdur ki, hər dövlətin inkişafı onun vətəndaşlarının yaşayış tərzi ilə ölçülür. Bu gün Azərbaycanda yaşayan insanların sosial rifah halının aydan-aya deyil, gündən-günə yüksəlməsi inkaredilməz faktdır. Harada ulu öndərin əllərinin izi, zəhməti, əməyi, adı varsa, orada yalnız uğurlardan, işıqlı sabahdan söhbət açıla bilər.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin atdığı hər bir addım, dövlətçiliyimizin təkcə möhkəmlənməsinə deyil, bütövlükdə ölkə vətəndaşlarının sosial-rifah halının durmadan inkişafına yönəlməsi həm də onu göstərir ki, ulu öndərin ölməz və işıqlı ideyaları həmişəyaşardır. Bu işdə 2004-cü ilin may ayının 10-da yaradılmış Heydər Əliyev Fondunun rəhbəri, millət vəkilimiz, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, ölkəmizin birinci xanımı hörmətli Mehriban xanım Əliyevanın müstəsna xidmətləri göz önündədir.

Fond ulu öndərin ideyalarının yüksək səviyyədə həyata keçirilməsi prosesində yorulmadan yüksək səviyyədə işlər aparır.

Heç kimə sirr deyildir ki, Heydər Əliyev Fondu ölkəmizin birinci xanımı Mehriban xanım Əliyevanın rəhbərliyi altında təkcə ölkəmizdə deyil, Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasını sürətləndirilməsində xüsusi rola malikdir.

Azərbaycanın birinci xanımı, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondu da yarandığı 2004-cü ildən az bir müddət keçməsinə baxmayaraq həm ölkəmizdə, həm də beynəlxalq aləmdə xüsusi rəğbət qazanmışdır. Heydər Əliyev fondunun fəaliyyəti cəmiyyət həyatının bütün əhəmiyyətli sahələrini əhatə edir. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı son illər ölkəmizdə reallaşdırılan ən uğurlu layihələrdən olmuşdur. Bu proqram sayəsində ölkəmizin müxtəlif bölgələrində onlarla yeni məktəb tikilmiş, yüzlərlə məktəb əsaslı şəkildə təmir edilmişdir. Bundan başqa, "Təhsilə dəstək" layihəsi, "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramları da öz növbəsində Azərbaycanda təhsilin inkişafını sözün əsl mənasında ictimai hərəkata çevirmişdir. Heydər Əliyev Fondunun təhsilin inkişafı sahəsində gördüyü işlər tək ölkəmizlə məhdudlaşmır.

Heydər Əliyev Fonduna Mehriban xanım Əliyeva kimi bir insanın rəhbərlik etməsi, Azərbaycanın çiçəklənməsi yolunda gördüyü böyük işlər həm də ona görə uğurludur ki, Azərbaycan Milli Məclisinin deputatı, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın özü müasir Azərbaycanın dövlətçilik fəlsəfəsinin yaradıcısı ulu öndərimiz Heydər Əliyev siyasi akademiyasından dərs alıb. Məhz elə Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin, təhsilinin, elminin, incəsənətinin durmadan artan yaradıcı inkişafında gördüyü işlər bir daha sübut edir ki, o ulu öndərimizin fenomenliyinin daha böyük miqyasda tanıdılması üçün bundan sonra da nələr etməyin vacibliyini dərk edən insanların ön sırasındadır.

Ulu öndərin layiqli davamçısı, cənab Prezidentimiz İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrü təhlil edərkən nəticə olaraq bu qərara gəlmək olur ki, dünyanı ərzaq qıtlığı ilə üzləşəcəyi barədə mütəxəssislərin verdikləri proqnozların vaxtında qarşısını almaq üçün möhtərəm Prezidentimiz cənab İlham Əliyev əhalinin ərzaq qıtlığı ilə bağlı etibarlı təminatını təmin etmək məqsədi ilə ondan artıq fərman və sərəncam imzalamışdır. Cənab İlham Əliyevin 5 illik prezidentliyi dövründə ölkəmizdə əgər 2003-cü ildə Dövlət büdcəsi 1,5 milyard ABŞ dollarına bərabər idisə, bu, 2008-ci ildə 12 milyard ABŞ dolları olmuşdur. Regionların inkişaf proqramı çərçivəsində 5 il ərzində Azərbaycan regionlarında çox böyük işlər görülmüşdür. Sahibkarlar sinfi formalaşmış, yeni zavodlar, fabriklər açılmış, infrastruktur layihələri həyata keçirilmiş, elektrik stansiyaları tikilmiş, su, qaz kəmərləri çəkilmiş, ölkədə 1400 məktəb tikilmiş, 766 min iş yeri açılmışdır.

Azərbaycan Respublikasında əhalinin zəruri ərzaq məhsulları ilə təmin edilməsi məqsədilə aqrar bölmədə aparılan köklü islahatlar bu sahənin daha sürətlə inkişafına əlverişli zəmin yaratmışdır. Dövlət tərəfindən kənd təsərrüfatı istehsalçılarına və emal müəssisələrinə geniş texniki və maliyyə dəstəyi aqrar bölmənin inkişafında mühüm rol oynayır. “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli sərəncamına uyğun kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadə etdikləri yanacağın, motor yağının və mineral gübrələrin dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən ödənilməsi kənd təsərrüfatı istehsalına güclü təkan vermişdir. 2003-cü illə müqayisədə 2008-ci ildə taxıl istehsalı-21,4 faiz, kartof-40,1 faiz, tərəvəz-17,4 faiz, bostan məhsulları-14,3 faiz, meyvə və giləmeyvə-24,6 faiz, üzüm-78.1 faiz artmışdır. Bu müddət ərzində diri çəkidə ət istehsalı-30,6 faiz, süd istehsalı-18,3 faiz, yumurta istehsalı-47,9 faiz, yun istehsalı isə 22,3 faiz artmış, kənd təsərrüfatının ümumi məhsulu isə – 25.2 faiz artmışdır. İotisadiyyatın sürətli inkişafı ilə yanaşı, son illər əhalinin rifahını səciyyələndirən göstəricilərdə də yüksək artım dinamikası müşahidə edilmiş, 2003-cü illə müqayisədə 2008-ci ildə əhalinin gəlirləri 4 dəfə artmışdır. Bu dövrdə muzdla işləyənlərin orta aylıq əmək haqqı 3,5 dəfə artaraq inflyasiya səviyyəsini 1,7 dəfə üstələmiş və 268 manata çatmışdır. 2008-ci ilin sentyabrından minimum əmək haqqının və pensiyanın minimum məbləğinin həddi 75 manata çatdırılmışdır. 2003-cü ildə ölkə əhalisinin təxminən 45 faizi yoxsulluq şəraitində yaşayırdısa, 2008-ci ilin sonuna bu kateqoriyaya əhalinin yalnız 13,2 faizi aid olunur.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin hakimiyyəti illərində büdcə gəlirləri 4 dəfədən çox artıb. Dövlətin büdcə siyasətinin ən mühüm özəlliyi ondan ibarətdir ki, hökumət vəsaitlərin 65-70 faizini sosial proqramların icrasına, xüsusilə əhalinin sosial-iqtisadi təminatının yaxşılaşdırılmasına sərf edir.

Ulu öndərimizin siyasi-iqtisadi kursunun onun layiqli davamçısı cənab İlham Əliyev tərəfindən uğurla yerinə yetirilməsini biz hər an görürük. Son vaxtlar dünya ölkələrinin iqtisadi böhran keçirməsi göz önündədir. Ancaq cənab İlham Əliyev bu böhranın Azərbaycan xalqına təsirsiz ötüşəcəyini bəyan edərək Nazirlər Kabinetinin 2008-ci ilin doqquz ayında sosial-iqtisadi inkişafın yekunlarına həsr olunmuş geniş iclasındakı nitqində inamla demişdir: “Düzdür, indiki zamanda-dünyada maliyyə böhranı hökm sürdüyü bir zamanda, bəlkə də bir çox ölkələrdə bu barədə fikirləşirlər. Amma mən hesab edirəm ki, biz öz siyasətimizi bundan sonra da bu istiqamətdə aparmalıyıq. Bizim siyasətimizdə heç bir dəyişiklik olmamalıdır. Bir də demək istəyirəm ki, dünya maliyyə böhranı Azərbaycandan yan keçibdir. Biz bütün tədbirləri görmüşük ki, bu böhranlı vəziyyətə düşməyək”.

Təbii ki, bütün bunlar ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasi-iqtisadi kursunun onun layiqli davamçısı hörmətli Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsinin əyani sübutudur.

**“Respublika“**.-2009.-12 iyun.-№126.-S.2

## HEYDƏR ƏLİYEV EPOXASI

**Nurlana ƏLİYEVA,**
YAP Qadınlar Şurasının sədri, filologiya elmləri
doktoru, professor

Qırx il bundan əvvəl, 1969-cu ilin iyulunda Sovet Azərbaycanında yeni dövrün başlanğıcı olacaq bir hadisə baş verdi: Azərbaycan partiya təşkilatına yeni rəhbər təyin edildi. Televiziya, radio və qəzetlər Heydər Əlirza oğlu Əliyevin MK-nın birinci katibi olması haqqında xəbəri yaymağa başladılar. Respublikanın yeni rəhbəri dövlət təhlükəsizliyi orqanlarında işlədiyindən sıravi vətəndaşlar onu nisbətən az tanıyırdılar. Amma yeni rəhbərin təyinatından bir ay sonra 1969-cu il avqust plenumundakı nitqi onu bütün cəmiyyətə tanıtdı. Bu nitq ölkədəki vəziyyəti çəhrayı rəngdə təsvir etməyə vərdişli olan kommunist ənənələrinə uyğun gəlmirdi.

Heydər Əliyev respublikanın iqtisadi, siyasi, mədəni həyatındakı kəskin sosial problemləri açıq şəkildə ortaya qoyub tənqid etdi. Bu, dövrünə görə çox sərt bir tənqid idi və cəmiyyətin bütün təbəqələrində əks-səda verdi. Sadə insanlar həqiqəti bilməyi və eşitməyi xoşlayırlar. Onlar Heydər Əliyevin şəxsində ölkə rəhbərliyinə qeyri-adi bir insanın gəldiyini anladılar. Həm də bu şəxsiyyəti xoşlayıb sevdilər. İlk növbədə, həqiqətpərəstliyinə görə, respublikanın tərəqqisi üçün ürəkdən yandığına görə.

Heydər Əliyev respublika rəhbəri vəzifəsində 13 ilə qədər çalışdı. Bu illərin hər biri onun şəxsiyyətinin, siyasi müdrikliyinin miqyasını xalqımız üçün daha yaxşı aydınlaşdırdı. Sonra ümummilli lider Moskvaya, Kremlə aparıldı, daha yüksək bir vəzifəyə – SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Siyasi Büronun üzvü seçildi. SSRİ dağılandan sonra vətənə qayıdıb 1993-cü ilin iyununda xalqın arzu və tələbi ilə xilaskar kimi yenidən hakimiyyətə gəldi, müstəqil Azərbaycan dövlətini vətəndaş müharibəsindən qorudu, müstəqilliyimizi möhkəmləndirdi və gələcək nəsillərə miras qoydu. Ulu öndərin siyasi fəaliyyət dövrünə nəzər salanda bunun xalqımızın XX əsr taleyində bir epoxa təşkil etdiyini görürük.

Azərbaycanın tarixdə müdrik dövlət adamları çox olmuşdur. Onların sırasında Heydər Əliyev ayrıca və misilsiz mövqe tutur. Həmin mövqe tarixin bu böyük şəxsiyyətin öhdəsinə qoyduğu missiyanın, vəzifələrin mürəkkəbliyi ilə bağlı idi: müstəqil Azərbaycan dövlətini yaratmaq! Tariximizdə Heydər Əliyev epoxasının təyinatı belə idi. Tale dahi insana Azərbaycanın müstəqilliyini bərpa, sonra isə onu dönməz etmək vəzifəsi ayırmışdı. Ulu öndər 50-ci illərin ortalarından ömrünün sonuna qədər bu missiya ilə məşğul oldu. Heydər Əliyevin bütün ömrü həmin missiyaya doğru yoxuş, yüksəliş yolu idi. Böyük rəhbər bu yoxuşu nəfəsini dərmədən qalxmışdı, həm özünü, həm də doğma xalqını, dövlətini bu missiya üçün hazırlamışdı…

Bu, ağılagəlməz dərəcədə çətin vəzifə idi. XX əsrin sonlarında dünya böyük dövlətlər arasında bölünmüşdü. Müstəqil dövlətlərin yaranması şansı sıfıra bərabər sayılırdı. Bolşeviklər üçün insanın, xalqların azadlığı anlayışı yox idi. Əksinə, insanlar, xalqlar uydurulmuş utopiyaların rellaşdırılmasına vasitə sayılırdı. Bu rejim öz qəddarlığı ilə dəfələrlə bəşəriyyəti heyrətdə qoymuşdu. Ona görə də sovetlər imperiyasının dağılması heç kəsin ağlına sığmırdı. Belə ağır şəraitdə də Heydər Əliyev Vətənin müstəqilliyinin real tarixi vəzifə olduğuna inanırdı. Müdrik rəhbərin inamı Vətəninin müstəqillik yoluna çıxmasında misilsiz rol oynadı, xalqı həmin yola hazırladı.

Heydər Əliyevin fəaliyyəti və yüksəlişi Naxçıvandan başladı. Bu qədim şəhər balaca və bağlı sərhəd ərazisi idi. Gələcəyin dahisi çoxuşaqlı ailədə böyüyürdü. İntizam və zəhmətkeşlik bu ailənin əsas xüsusiyyətləri idi. Təhsilə başlayan kimi Heydər Əliyevin gələcək uğurlarının əsası qoyuldu. Gözəl xətti, misilsiz yaddaşı vardı. Uşaqlıqda onu ən çox maraqlandıran ədəbiyyat və tarix idi. Hüseyn Cavidi, Səməd Vurğunu sevə-sevə oxuyurdu. “Komsomol” poemasını əzbər bilirdi. Məktəbdə dram dərnəyində iştirak edirdi. Sinifdən-sinfə keçdikcə tarix dərslərini daha səylə öyrənirdi: qədim dövlətlər, xalqlar, müharibələr, böyük imperiyaların yaranması və süqutu. Tarixdə hər şey vardı.

Vəzifə pillələrində yüksəldikcə, xalqın tarixini daha yaxından öyrəndikcə müdrik insan doğma Vətəninin varlığını daha yaxşı görür və dərk edirdi. Azərbaycan xalqı böyük və qüdrətli bir xalqdır. Amma ətrafdakı yoxsulluq, insanların millət və azadlıq sözünü dilinə gətirməkdən qorxması ona ağır təsir edirdi. Bakıda işləməyə başlayanda bu dahi şəxsiyyət xalqımız qarşısında necə böyük və çətin vəzifələrin durduğunu anladı.

Çalışdığı təhlükəsizlik orqanlarında bütün rəhbər vəzifələrdə qeyri-millətlərin nümayəndələri idi. Yerli kadrlara yuxarıdan aşağı baxırdılar. Torpağımızın üstündə ağa qüruru ilə yeriyirdilər. Xüsusilə ermənilər bu orqanda at oynadır, azərbaycanlıların yüksəlişinin qarşısını alır, ən zəif və iradəsiz adamları irəli çəkirdilər.

Bütün dövlət orqanlarında, təsərrüfat sahələrində də vəziyyət təxminən eyni idi. Bakı partiya təşkilatının, prokurorluq və milis orqanlarının bütün aparıcı vəzifələrində ermənilər oturmuşdular. Hətta elm və

tarix problemləri müzakirə olunanda da Moskva ancaq onların rəyi ilə hesablaşırdı. Bütün gəlirli sahələrdə, eləcə də ictimai işlərdə xalqın sərvətlərinə nəzarət edilən nöqtələrdə ermənilər oturmuşdular. 1920-ci ilin 27 aprelindən sonra bu hal yazılmamış qanun kimi davam edirdi. Əslində isə yerli kadrlara Moskvada inam yox idi.

Bu vəziyyəti sındırmaq və dəyişmək üçün, ilk növbədə, siyasi hakimiyyət və nüfuz qazanmaq lazım idi. 1956-cı ildə stalinizm ifşa ediləndən sonra Heydər Əliyev siyasi yüksəliş planlarını ardıcıl surətdə həyata keçirməyə başladı.

Dəmir iradəsi, yorulmazlığı, qeyri-adi müdrikliyi, dövlət siyasətindən professional səviyyədə baş çıxarması nəticəsində Heydər Əliyev Azərbaycanın dövlət təhlükəsizliyi sistemində ən böyük nüfuz sahibinə çevrildi. Hətta Moskvada da bu müdrik insanın rəyini diqqətlə dinləyir, peşəkar kimi məsləhətləşirdilər. Lakin Heydər Əliyev öz nüfuzundan, ilk növbədə, bir məqsədlə – xalqa sədaqətli, yetkin azərbaycanlı kadrları irəli çəkmək üçün istifadə edirdi. Elə bir məqam gəlib çıxdı ki, ermənilər Heydər Əliyevin nüfuzu qarşısında geri çəkildilər. Xalqın böyük oğlu əvvəlcə təhlükəsizlik orqanında ikinci, sonra isə birinci şəxs oldu.

Bundan sonra ulu öndərin Azərbaycanda real rəhbərlik dövrü başlayır. Respublikada xalq üçün hər hansı bir işi görmək, ilk növbədə, dövlət təhlükəsizliyi orqanlarında gərəkli adamları vəzifələrə irəli çəkmək və bu orqanı neytrallaşdırmaq lazım idi. O zamanlar bu orqanın nüfuzu yüksək idi, Moskvadakı partiya rəhbərliyi bu şəxsiyyətin rəyinə böyük əhəmiyyət verirdi.

Siyasi yüksəliş illərində Heydər Əliyevin başlıca keyfiyyəti – parlaq dövlətçilik bacarığı özünü qabarıq göstərdi. Ulu öndər siyasi planlarını çılpaq, volyuntarist əmrlər şəklində deyil, gündəlik və yorulmaz təşkilatçılıq yolu ilə həyata keçirirdi. Ətrafdakı insanlar, cəmiyyət bunu çox vaxt hadisələrin təbii axarı kimi qəbul edirdilər. Əslində isə böyük öndərin hər bir kadr dəyişikliyinin uzaqgörən məqsədləri var idi. Həmişə milli dövlətçilik planları ilə bağlı idi.

Ulu öndərin digər rəhbərlik xüsusiyyəti uzaqgörənliyində, siyasi və iradi ardıcıllığında özünü göstərirdi. Böyük planlar qurmaq ümummilli liderimizin siyasi rəhbərliyinin mühüm cizgisi idi. Amma kənardan onun bu xüsusiyyəti də demək olar ki, sezilmirdi. Səbəb isə o idi ki, ulu öndərin siyasi qərarları və gedişləri neçə illər sonraya yönəlirdi. Ona görə Heydər Əliyevin qəbul etdiyi qərarların mənası ancaq beş-yeddi il keçdikdən sonra sezilə bilərdi. Həm də hamı tərəfindən yox, onun Azərbaycanda yeritdiyi milliləşdirmə siyasətini duyanlar tərəfindən.

1969-cu ildə Heydər Əliyev artıq dövlət təhlükəsizliyi orqanlarını milliləşdirmək vəzifəsini yerinə yetirmişdi. Həmin ildə Azərbaycanın rəhbərliyini yeniləşdirmək ideyası ortaya çıxanda Heydər Əliyevin Moskvadakı tərəfdarları onun namizədliyini irəli sürdülər. 1969-cu ilin iyulunda öndər bu vəzifəyə seçildi. Beləliklə, xalqın müdrik oğlu Azərbaycan Respublikasının güclü iqtisadiyyatının yaradılması mərhələsinə keçə bildi. O zamanlar ölkədəki inzibati, iqtisadi və siyasi hakimiyyətin hamısı birinci katibin nəzarətində olurdu.

Böyük rəhbərin strateji ustalığını onun nitqləri və sözləri ilə real siyasi qərarları arasındakı mövqedə görmək olardı. Çıxışlarında ulu öndər alovlu bir beynəlmiləlçi kimi danışır və düşmənlərinin, erməni daşnakların istifadə edəcəyi arqumentləri onların əlindən alırdı. Əməldə isə bütün qərarlar Azərbaycan Respublikasının hər bir sahəsində yüksəldilməsinə yönəlmişdi. Bu xətt əvvəlcə milli ruhlu kadrların aparıcı vəzifələrdə yerləşdirilməsində, ikincisi, erməni millətindən olan şəxslərin mühüm və çoxgəlirli iqtisadi postlardan uzaqlaşdırılmasında öz əksini tapırdı.

Azərbaycanı müstəqillik idealına tərəf aparmaq üçün Heydər Əliyevin qarşısında o zaman iki əsas vəzifə dururdu: birincisi, Azərbaycanın iqtisadiyyatını inkişaf etdirib müstəqil ölkə kimi yaşaya biləcək bir səviyyəyə qaldırmaq idi. Ona görə 1969-1982-ci illəri müstəqilliyin iqtisadi əsaslarını yaratmaq mərhələsi adlandırmaq olar. İkinci vəzifə isə Azərbaycan Sovet Respublikasının bütün hüceyrələrində yuva salmış erməni hökmranlığını hiss olunmadan dağıtmaq. Bu mürəkkəb vəzifələri Heydər Əliyev cəmi on üç il ərzində həyata keçirdi.

1969-1982-ci illərdəki sürətli iqtisadi quruculuq xalqımızın azadlığa və müstəqilliyə qovuşması yolunda köklü əhəmiyyət daşıyırdı. Güclü iqtisadiyyatı olmayan xalq və onun dövləti xarici düşmənlərin müqavimətinə tab gətirə bilməzdi. Üzaqgörən bir siyasətçi kimi ulu öndər Azərbaycanın müstəqilliyinə hansı beynəlxalq qüvvələrin və dairələrin müqavimət göstərəcəyini yaxşı bilirdi. Bu amillər iyirmi üç ay yaşamış Azərbaycan Xalq Cümhuriyyətinin taleyi timsalında çox yaxşı məlum idi. 1918-1920-ci illərdə də ermənilər xarici qüvvələrin və dövlətlərin aləti kimi çıxış edərək gənc respublikada talanlar törətmiş, sərhəd müharibəsini alovlandırmağa nail olmuşdular.

Ötən əsrin 70-ci illərində gedən iqtisadi tərəqqinin, onlarca yeni zavod və fabriklərin tikintisinin bir əhəmiyyəti də Bakı şəhərinin böyüməsi və onun əhalisinin tərkibində azərbaycanlıların tam əksəriyyət təşkil edə bilməsi idi. Yeni tikilən sənaye müəssisələrinə və zavodlara lazım olan işçi qüvvəsi paytaxta kənd rayonlarından gəlir və Bakının milli bir şəhərə çevrilməsi problemini həll edirdi. Rəhbər bunu bilir və vəziyyəti tənzimləyirdi.

Ulu öndər hesab edirdi ki, Azərbaycanın müstəqilliyi üçün müəyyən hərbi potensial vacibdir. Ona görə Moskvanın milli hərbi kadrlara inamsızlıq siyasətinin əksinə olaraq azərbaycanlıların hərbi peşələrə kütləvi şəkildə getməsi, zabit kimi yetişməsi üçün müxtəlif tədbirlər görürdü. Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması bunlardan biri idi. Həmin məktəbdə onuncu sinfi bitirən gənclər ölkənin hərbi ali təhsil ocaqlarına qəbul olunurdu. Heydər Əliyev azərbaycanlı gənclər üçün bu məktəblərdə hər il müəyyən sayda müsabiqəsiz yerlər alırdı.

Eyni zamanda, qısa bir vaxtda SSRİ müdafiə sənayesinin Azərbaycanda on bir böyük zavodu tikildi. Bu zavodlar bir tərəfdən hərbi sənaye ocaqları olaraq müstəqillik dövrü üçün hava və su kimi vacib idi. Digər tərəfdən, bu zavodlarda keçmiş sovetlərin ən müasir və qabaqcıl texnologiyaları tətbiq olunurdu. Həmin texnologiyalar Azərbaycan Respublikasının sənaye istehsalında elm tutumlu məhsulların həcmini qat-qat artırırdı. İndi həmin zavodların hamısı Müdafiə Sənayesi Nazirliyinin tərkibinə daxildir. Bu zavodlar da Azərbaycanın hərbi kadr potensialının mənbələrindən biri idi.

Ulu öndərin məqsədyönlü siyasəti nəticəsində Azərbaycanın aqrar-sənaye kompleksi də bir neçə dəfə artdı və Vətənin nəinki ərzaq müstəqilliyi təmin olundu, üstəlik, daxili məhsulun yarısından da artıq çəkisi olan bir sahəyə çevrildi. Kənd rayonlarında yüzlərlə zavod və fabriklər tikildi. Kənddə əhalinin əksəriyyəti dövlətdən əməkhaqqı almağa başladı. Maddi yüksəliş vətənimizdə həm də mənəvi yüksəlişə, Azərbaycan milli şüurunun yeni bir səviyyəsinin gerçəkləşməsinə səbəb oldu. Məhz bu şüur səviyyəsi 1988-1992-ci illərdə Qarabağ torpaqları uğrunda xalq hərəkatının mənəvi əsasını təşkil edirdi.

Xalqın mənəvi tərəqqisinə, milli şüurun artmasına ulu öndər xüsusi əhəmiyyət verir və bu sahədə inqilabi yeniliklər həyata keçirirdi. Ötən əsrin 70-ci illərində Nizami, Nəsimi, Səməd Vurğun kimi klassiklərimizin dövlət səviyyəsində həyata keçirilən yubileyləri gənc nəslin vətənpərvərlik tərbiyəsində, onun azadlıq hərəkatı üçün hazırlanmasında misilsiz rol oynayırdı.

Heydər Əliyevin Vətən qarşısında ən böyük xidmətləri həm də ədəbiyyat, mədəniyyət və təhsillə, bu sahələrin xalqın milli ideallarını daha tam ifadə edə bilməsi məqsədləri ilə bağlı idi. Məhz Heydər Əliyevin dövründə yaradıcılıq ittifaqlarında milli ruh hökmran oldu. İstedad sahiblərinə, yazıçı-şair, bəstəkar və rəssamlara öndər özü şəxsən xüsusi qayğı göstərir, cəmiyyətdə onların nüfuzunun artmasına çalışırdı. Heydər Əliyevin dövründə Azərbaycan təhsilində köklü dəyişikliklər baş verdi. Məktəb tikintisi görünməmiş vüsət aldı. Yeni ali məktəblər təşkil olundu. Keçmiş SSRİ-nin müxtəlif ali məktəblərinə göndərilən minlərlə istedadlı gənc ölkəyə qayıdıb onun kadr və intellektual potensialını qat-qat artırdı. Təhsili idarə edən kadrlar arasında milli ruhlu insanlar irəli çəkildilər.

Sadalanan uğurların hamısı Heydər Əliyevin yorulmaz təşkilatçılıq işinin nəticəsi idi. Sənaye və tikinti sahəsində dəyişikliklər üçün ümumittifaq büdcəsindən vəsaitləri şəxsən ulu öndər özü alır, bu iş üçün şəxsi nüfuzundan istifadə edir və alınan vəsaitlərin tam şəkildə xərclənməsinə lazım gələn bütün tədbirləri görürdü. Heydər Əliyev yorulmaq bilmədən Vətənin gələcəyi naminə çalışırdı. Heydər Əliyev həmişə deyirdi: “Azərbaycan xalqı böyük xalqdır”. Onun bu yığcam cümləsində hamımızın fəxr etdiyi həqiqət həm sübut, həm təsdiq, həm də milli qürur hissiyyatlarının təntənəsi idi.

Biz müstəqil dövlətdə yaşayırıq, ona görə gənc nəsil ana dilimizin bir vaxtlar yarıqadağalı bir status daşıdığını təsəvvür edə bilməz. Tələbə olduğum 60-cı illərdə rəsmi yığıncaqlarda ancaq rus dilində danışılırdı. Bu gün bunu təsəvvür etmək çətindir: üzərindən qadağa götürülən şeyləri insanlar təbii bir hal kimi qəbul edirlər. Lakin hazırda sərbəst işlənən ana dilimiz bir vaxtlar öz varlığını yaşatmaq üçün mübarizələr aparırdı.

Bu mübarizələrin tarixində Heydər Əliyevin xüsusi rolu var. Ümummilli lider ana dilimizin azadlığı uğrunda iki cəbhədə mübarizə aparırdı. Birinci cəbhə onun özünün ana dilində danışması idi. İkinci cəbhə isə qanunverici və rəsmi yollarla dilimizin statusunun artırılması xətti idi. Sovet vaxtı hakimiyyət kommunist partiyasında idi. Bu partiyanın dili isə rus dili idi. Onun dəhlizlərində belə bir nəfər də olsun ana dilində sənəd hazırlaya bilməzdi.

Belə şəraitdə Heydər Əliyev respublikanın birinci şəxsi oldu. Lakin respublikanın birinci şəxsi də tam azad və müstəqil deyildi. Bütün vəzifəli şəxslər kimi, respublika rəhbəri də Moskvaya tabe idi, hər gün Moskvadakı nəzarətçilərlə ünsiyyətdə olmalı idi. Belə çətin şəraitdə Heydər Əliyev Azərbaycan dilində nitqlər etməyə başladı. Əvvəllər bu nitqləri Azərbaycan rayonlarındakı partiya məclislərində, təsərrüfat yığıncaqlarında edirdi. Bunun üçün mühüm əsas da vardı: yerlərdəki kadrlar və sadə adamlar rus dilini pis bilirdi və ya heç bilmirdilər.

Rəhbərin ana dilində ilk nitqləri tarixi bir məna kəsb etdi. Ulu öndərin 1969-cu ildə hakimiyyətə gəlişi ilə həyata keçirilən milli kökə qayıdış prosesi, əslində, bu nitqlərin təsiri ilə başladı. Həm də ən mühümü odur ki, əyalətdə, xalq kütləsinin içində oldu. İnsanlar rəhbərin gözəl, ifadəli ana dilində etdiyi çıxışlarında, onun

dövlətçilik məntiqində, Vətənimizi sürətlə qurub qüdrətli dövlətə çevirmək çağırışlarında müstəqil dövlətimizin doğma sədalarını eşitdilər.

Sonralar ulu öndər Bakıdakı məclislərdə də ana dilində danışmaq üçün fürsətlər tapdı. Yaradıcılıq ittifaqlarının, xüsusilə Yazıçılar İttifaqının məclislərində Azərbaycan dilində çıxışlar etməyə başladı. Ümummilli liderin rəsmi partiya tədbirlərindəki çıxışları ana dilimizin heç vaxt işlənməmiş siyasi üslubunu yaratmışdı. Bunun özü də tarixi bir xidmət idi. Yad dildə danışan dövlət milli ola bilməz. Ona görə Heydər Əliyevin nitqləri onun rəhbərlik etdiyi hakimiyyətə də doğmalıq hissləri yaradırdı. Yüzlərlə məmur, sadə insanlar anlayırdılar ki, böyük rəhbərin yorulmadan qurub yüksəltdiyi Azərbaycan iqtisadiyyatı özümüzündür və dövlətimiz üçündür. Bunu dərk edən, rəhbərə sidqlə inanan yüzlərlə məmur sonralar Azərbaycanın müstəqilliyini müdafiə etdi, bu müstəqilliyin memarının yaxın köməkçiləri və silahdaşları oldular.

Heydər Əliyev ana dilinin dairəsini öz nümunəsi ilə gücləndirməklə yanaşı, rəsmi yolla statusunun qaldırılması sahəsində də misilsiz xidmətlər göstərmişdir. Mən onlardan ancaq birinin üzərində durmaq istəyirəm. O da 1978-ci il Azərbaycan SSR Konstitusiyası qəbul olunan zaman orada Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi idi. Həmin dövrdə təhlükəli bir nəzəriyyə ortaya atılmışdı: iddia olunurdu ki, guya sovet dövlətində yaşayan bütün insanlar vahid bir millətə – sovet xalqına çevriliblər. Bu, çox yanlış və milli dillərə, mədəniyyətlərə qarşı yönəlmiş nəzəriyyə idi. Belə vaxtda Heydər Əliyev Elmlər Akademiyasında böyük alimlərin iştirakı ilə Konstitusiya layihəsinin müzakirəsini təşkil etdi. Müdrik rəhbərin verdiyi qeyri-rəsmi istiqamət nəticəsində yığıncaq Azərbaycan dilinin Konstitusiyada dövlət dili kimi göstərilməsi barədə təklif irəli sürdü. Milli ziyalı təbəqəsinin timsalı olan təklifi Moskva qulaqardına vura bilmədi.

Bundan sonra ana dilini inkişaf etdirmək, həmin dildə elmi və bədii yaradıcılığı genişləndirmək, kino, teatr quruculuğunda milli dilin tətbiqini gücləndirmək daha asan oldu. Kino kimi mühüm sahədə Moskva Bakıdan gələn ssenariləri belə rus dilində tələb edirdi. Ona görə kinostudiya əcnəbi millətindən olan qələm adamları ilə dolmuşdu. Bunu aradan qaldırmaq üçün ulu öndər oraya ana dilinə, xalqa bağlı olan kadrlar göndərdi. Məhz Heydər Əliyevin bilavasitə himayəsi ilə xalqımızın qəhrəmanlıq keçmişini əks etdirən filmlər kinomuzun əsas mövzusu oldu. “Nəsimi”, “Babək”, “Dəli Kür” kimi filmlər gəncliyin milli ruhda tərbiyəsində və sonralar kütləvi surətdə müstəqillik hərəkatına qoşulmasında böyük rol oynadı.

İnamla demək olar ki, Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlməsi ədəbiyyat və incəsənətimizdə milli cərəyanın yüksəlişinə səbəb oldu. Ulu öndər Bəxtiyar Vahabzadə, Xəlil Rza, Məmməd Araz, İsa Hüseynov kimi milli zəminə bağlı və istedadlı sənətkarları daim himayə edirdi. Belə sənətkarlar isə ədəbiyyatın milli varlığımız, milli dəyərlərimizlə bağlılığı mövzularını uğurla işləyib inkişaf etdirirdilər.

Heydər Əliyevin irsi milli quruculuq strategiyasıdır, bu irsin aktual mənası ulu öndərin praqmatik bir dövlətçi olmasıdır. Ona görə istər siyasi təbliğatda, istər tədris və təhsildə, istərsə də elmi sahədə əsas diqqət bu cəhətlərə yönəlməlidir.

Bu gün respublikamızda Heydər Əliyev siyasəti davam edir. Rəhbərin siyasi varisi Prezident İlham Əliyev onun milli tərəqqi və quruculuq xəttinə sadiqdir. Ölkəmizdə misilsiz dəyişikliklər baş verir, paytaxtımız yeniləşir, arxitektura görkəmi tamam təzələnir. İnsanların rifahı, yeni iş yerlərinin açılması, iqtisadi layihələrin gerçəkləşdirilməsi ölkə rəhbərinin daim diqqət mərkəzindədir. Prezidentimiz dünya maliyyə böhranının ölkəmizə daha az ziyan vurması üçün lazımi olan bütün tədbirləri görür, sadə, sıravi vətəndaşların bu böhrandan ziyan çəkməməsi naminə hər şeyi edir.

Heydər Əliyevin qırx il əvvəl Azərbaycanda hakimiyyətə gəlməsi həm də xalqın tarixində Milli Qurtuluş epoxasının başlanğıcı idi. Ulu öndərin 1993-cü ilin 15 iyunundakı qayıdışı isə xalqın həqiqi milli qurtuluşu idi. Ona görə də qədirbilən xalqımız bu günü öz sevimli bayramı kimi qeyd edir.

**“Azərbaycan“.-**2009.-12 iyun.-N 126.-S.2.

# AZƏRBAYCANIN NEFT-KİMYA SƏNAYESİNİN İNKİŞAFI HEYDƏR ƏLİYEVİN ADI İLƏ BAĞLIDIR

**Məcid KƏRİMOV,**
"Azərikimya "Dövlət Şirkətinin prezidenti,
Milli Məclisin deputatı, əməkdar elm xadimi,
texnika elmləri doktoru, professor

Ulu öndər 1969-cu ildə respublika rəhbərliyinə gəlişi ilə ölkəmizə yeni ictimai-siyasi ab – hava, həyat coşqunluğu, yüksək iqtisadi inkişaf, bolluq-bərəkət, ürəklərə nikbinlik, sabaha böyük inam gətirmişdisə, 1993-cü ilin 15 iyununda Azərbaycan hakimiyyətinə yenidən tarixi qayıdışı ilə dahi, uzaqgörən bir siyasətçi kimi Vətənimizi və xalqımızı ağır bəlalardan və müsibətlərdən – dünyanın hərbi-siyasi uçurumuna yuvarlanmaqdan, imperiya qüvvələrinin caynağından, onların müstəmləkə asılılığından xilas etmiş, dövlətimizin müstəqilliyinin qorunmasını, onun demokratik, sivil bir ölkə kimi inkişafı və möhkəmlənməsini təmin etmiş, dünyanın qabaqcıl ölkələri sırasına çıxması üçün on illərlə irəliyə, xoşbəxt gələcəyə hesablanmış bütün zəruri tədbirlərin qətiyyətlə həyata keçirilməsinə nail ola bilmişdi…

XX əsrin bütün türk dünyasına bəxş etdiyi və xalqımızın haqlı olaraq öyündüyü böyük düha sahibi, Azərbaycanın qüdrətli xilaskarı, ölkəmizin müstəqilliyi və azadlığı, bütün mənalı həyatını haqq işinə həsr etmiş mətin mübariz, dünya şöhrətli dahi siyasətçi Heydər Əliyev doğma Vətəninin və xalqının xoşbəxtliyi uğrunda yorulmaq bilmədən fədakarlıqla çalışmış, Ulu Tanrının onun taleyinə-qismətinə yazdığı tarixi missiyanı öz dərin zəkası və qətiyyəti sayəsində qalibiyyətlə, şərəflə başa çatdırmışdır.

Ölkəmizin əsrlər boyu qüdrətli dühalar, elm-sənət korifeyləri yetişdirməsinə, zəngin elmi-intellektual potensiala, təbii sərvətlərə malik olmasına baxmayaraq, sovet hakimiyyəti vaxtında Azərbaycanda əhalinin həyat tərzinin digər respublika xalqlarının yaşayış səviyyəsindən geri qalması, maddi təminatının aşağı olması böyük vətənpərvər Heydər Əliyevi 1969-cu ildə hakimiyyətə gəldiyi ilk günlərdən ciddi narahat edir və düşündürürdü. O, respublika rəhbəri kimi bütün fəaliyyətini Azərbaycanı sürətli iqtisadi inkişaf yoluna çıxarmağa, onun maddi-texniki potensialını gücləndirməyə, əhalinin güzəranını yaxşılaşdırmağa yönəltmişdi. Azərbaycanı dünyanın yüksək tərəqqi etmiş ölkələri ilə bir sırada, sosial-iqtisadi və mədəni cəhətdən inkişaf etmiş, zəngin görmək istəyən dahi rəhbərimiz uzun illər ərzində bu sahədə çox böyük və genişmiqyaslı, fundamental işlər görmüşdür.

Təsadüfi deyil ki, 1969-cu ildən başlayaraq Azərbaycanda sənayenin və kənd təsərrüfatının bütün sahələrində əldə olunun yüksək nailiyyətlər nəinki o dövrün Sovet mətbuatının, hətta xarici ölkə rəhbərlərinin və analitiklərinin nəzər-diqqətini respublikamıza yönəltmişdi. Həmin illərdə Azərbaycana gələn xarici nümayəndələr heyrətlərini gizlətmədən, qısa müddət ərzində belə sürətli inkişafa nəyin sayəsində nail olunduğu ilə xüsusilə maraqlanırdılar. Onlar bunu ilk növbədə respublikanın yeni rəhbəri Heydər Əliyevin ölkəni idarəetmə işində yüksək təşkilatçılıq bacarığı ilə əlaqələndirirdilər. Lakin bu, danılmaz bir həqiqət olsa da, çoxları respublikamızın inkişafında mühüm əhəmiyyətə malik iki başlıca amili unudurdular. Birincisi, Heydər Əliyevin həm o dövrdə, həm də sonrakı illərdə bütün fəaliyyətinin özəyində doğma xalqına olan böyük, sonsuz məhəbbəti dururdu. İkincisi isə hələ o vaxt aşkarlığa və demokratiyaya şərait yaradan, əmək adamına xüsusi diqqət və qayğı göstərən respublika rəhbərinin çox qısa zaman ərzində qazandığı böyük nüfuz, ona olan ümumxalq hüsn-rəğbəti, inam və etibar idi.

Məhz haqq-ədaləti yüksək tutan, əsl zəhmət adamını layiqincə qiymətləndirən yeni rəhbərə olan inam və məhəbbətin, ehtiramın nəticəsi idi ki, respublikada hər kəs yüksək əmək coşqunluğu ilə, əzmkarlıqla çalışır, ölkə iqtisadiyyatının inkişafı üçün özünün qiymətli töhfəsini verirdi. Dünyada sürətlə baş verən iqtisadi-siyasi dəyişiklikləri, yeniləşmə proseslərini daim diqqət mərkəzində saxlayan respublika rəhbəri Azərbaycanın uzaq perspektivlər üçün güclü sosial-iqtisadi təminatını nəzərdə tutan müdrik ideyalarını elə ilk dövrlərdən reallaşdırmaq üçün mümkün olan bütün vasitələri səfərbərliyə almışdı.

Azərbaycanın kənd təsərrüfatının və bütün sənaye sahələrinin dinamik, kompleks inkişafı məqsədilə özünün geniş proqramını həyata keçirən ulu öndər ölkənin kimya sənayesinin də sürətli tərəqqisinə, onun potensialının güclənməsinə nail olmaq üçün iri miqyaslı tədbirlərin reallaşması istiqamətində ardıcıl şəkildə məqsədyönlü və səmərəli iş aparırdı. Bu baxımdan dahi rəhbərin ölkənin kimya müəssisələrində iqtisadi cəhətdən daha səmərəli yeni istehsalat sahələrinin yaradılmasında, mövcud sex və istehsalatların genişləndirilməsində və mütərəqqi texnologiyalar əsasında modernləşdirilməsində xidmətləri əvəzsizdir. Yalnız yaşadığı dövrü yox, on illərlə sonranı görməyə qadir ulu öndərimiz hakimiyyətdə olduğu illərdə kimya sənayesinin kompleks inkişafı və kimyaçıların sosial-mədəni həyatının durmadan yaxşılaşdırılmasına müsbət

təsir göstərən mühüm tədbirləri ardıcıllıqla həyata keçirirdi. Vətənini, xalqını ürəkdən sevən Heydər Əliyev hələ 1969-cu ildə hakimiyyətə gələnədək keçmiş SSRİ rəhbərliyinin Azərbaycanın xalq təsərrüfatına, o cümlədən, kimya sənayesinə ögey münasibət bəslədiyini böyük narahatlıqla hiss edirdi. Təkcə bunu qeyd etmək kifayətdir ki, kimya müəssisələrinin istehsalat fəaliyyətinə respublikanın ciddi müdaxilə edə bilməməsi məqsədilə zavodlar birbaşa ittifaq nazirliklərinə tabe etdirilmişdi. Əslində respublikanın kimya sənayesi və onun inkişafı məsələləri ümumittifaq mənafeyinə tabe edildiyindən verilən qərarlar çox zaman Azərbaycanın maraqlarının ziddinə olurdu. Məsələn, o vaxt tam əsassız olaraq sulfat turşusu, natrium qələvisi, xüsusilə superfosfat gübrələrinin istehsal gücü respublikada yüksək templərlə artırılırdı. Çox zərərli olan sulfat turşusunun istehsal həcmi həmin dövrdə 3 dəfə (!) artırılmışdı.

Xammalı Rusiyadan və keçmiş SSRİ-nin digər regionlarından gətirilərək, hazır məhsulu da elə Rusiyaya daşınan bir sıra kimya müəssisələrinin Sumqayıtda yerləşdirilməsi şəhərin onsuz da ağır olan ekologiyasına son dərəcə mənfi təsir göstərirdi. Respublika rəhbəri Heydər Əliyev bununla qətiyyən barışa bilmirdi ki, keçmiş ittifaq nazirlikləri çox vaxt Sumqayıtın kimya kompleksini açıq-aşkar təcrübə poliqonuna çevirir, texnoloji proseslər sınaqdan keçirilir və lazımi yüksək nəticə əldə edildikdən sonra həmin əsas istehsal sahələri digər regionlarda tikilib istifadəyə verilirdi. Bu cür münasibət Azərbaycanın kimya sənayesi müəssisələrində iqtisadi səmərəliliyin aşağı düşməsinə, rentabelliyin azalmasına səbəb olurdu. Məsələn, 1960-70-ci illərdə ümumilikdə Azərbaycan iqtisadiyyatının inkişaf sürəti ümumittifaq səviyyəsindən xeyli aşağı idi. Sənayedə əmək məhsuldarlığının artım tempi orta hesabla ittifaqdakı 5,05 faizə qarşı 3,35 faiz idi. 1970-ci ildə maddi istehsal sahələrində çalışan hər adama düşən orta milli gəlir isə ümumittifaq səviyyəsinin cəmi 85 faizini təşkil edirdi.

Dahi şəxsiyyət Heydər Əliyev hakimiyyətə gəldikdən sonra onun qətiyyəti və iradəsi sayəsində Azərbaycanın kimya sənayesinin yenidən qurulmasında, müasirləşdirilməsində əsaslı dönüş mərhələsi başlandı. Məhz Heydər Əliyev Azərbaycan iqtisadiyyatında kimya kompleksinin roluna xüsusi əhəmiyyət verdiyindən özünəməxsus müdriklik, qətiyyət və inadkarlıqla SSRİ-nin o vaxtkı rəhbər orqanlarında Azərbaycanın neftçıxarma və neft-kimya sənayesində əsaslı yenidənqurmanın inkişafı üçün xüsusi hökumət qərarlarının qəbul edilməsinə nail olmuşdu. 1971-ci ildə respublikada kimya sənayesinin qarşısında duran həlli vacib məsələləri diqqətlə araşdıran Heydər Əliyev ilk növbədə bu sahənin bütün texniki-iqtisadi və sosial baxımdan yeniləşdirilməsi proqramının yaradılması işini təşkil etməklə kimya sənayesinin inkişaf konsepsiyasının əsasını qoydu. Onun keçmiş Sovetlər İttifaqında böyük nüfuza malik olması, mövqe prinsipiallığı, işə gündəlik nəzarəti, eyni zamanda köməyi obyektlərin müəyyənləşdirilmiş vaxtda tikilib istifadəyə verilməsi üçün yüksək tələbkarlığı sayəsində neft emalı və kimya müəssisələrinin yenidən qurulması dövrün reallığına çevrilmişdi.

Heydər Əliyev ittifaq rəhbərliyindən təkidlə Azərbaycanın kimya və neft-kimya strukturlarının təkmilləşdirilməsini, mənəvi və fiziki baxımdan köhnəlmiş, aşınmış istehsalat sahələrinin ləğv edilib, əvəzində müasir, iritonnajlı, tullantısız texnologiyaya malik müəssisələrin yaradılmasını, eyni zamanda, texniki və təbiəti mühafizə obyektlərinin tikintisini həyata keçirməyə imkan verən həlledici qərarların qəbulunu tələb edirdi. Ulu öndər müəllifi olduğu konsepsiyanın, kimyanın yüksəliş proqramının tam həyata keçirilməsi üçün məhz özünün şəxsi təklifi və təkidi ilə o zaman keçmiş ümumittifaq fondundan böyük həcmdə kapital qoyuluşu ayrıldı.

Məhz Heydər Əliyevin uzaqgörən rəhbərliyi və yüksək təşkilatçılığı sayəsində 70-ci illərdə Sumqayıtın kimya sənayesi müəssisələrində müxtəlif istehsalat sahələrinin yenidən qurulmasının və yeni texnoloji istehsal sahələrinin yaradılmasından sonra mineral gübrələrin, plastik kütlələrin, sintetik qətranın, kauçuk və sulfanolun istehsalı 2 dəfəyə yaxın, məişət kimyası mallarının istehsal həcmi isə 2 dəfə artmışdı.

Ulu öndərin kimya sənayesinin inkişafı ilə bağlı konsepsiyasında nəzərdə tutulduğu kimi, “Kimyasənaye” İstehsalat Birliyində (hazırkı “SAM” zavodunda) 1970-ci ildən başlayaraq, sex və istehsalat sahələrində avadanlıqların təzələnməsi, yeni texnologiyaların tətbiqi üzrə ardıcıl və məqsədyönlü tədbirlər görüldü. 1975-ci ildə neft parafinlərindən istifadə etməklə daha mükəmməl texnologiya vasitəsilə yeni sulfanol istehsalı kompleksi istismara verildi. 1971-ci ildə sintetik kauçuk zavodunda illik gücü 15 min ton olan butil-kauçuk istehsalı işə salındı və müəssisə keçmiş SSRİ-də butil kauçukun xüsusi markalarını istehsal edən yeganə müəssisəyə çevrildi. Nəticədə həmin kauçuk növünün xaricdən alınmasına son qoyuldu və Bakı Şin zavodunu yerli xammalla təchiz etmək və hazırlanan şinlərin keyfiyyətini yüksəltmək mümkün oldu. 1976-cı ildə həmin müəssisədə butadien sexi işə salındı. Bir il sonra isə butadien-stirol, 1980-ci ildə butadien-nitril lateksləri, sonrakı ildə isə butadien-nitril kauçuku istehsal edən sex və qurğular istismara verildi. 1981-ci ildə ən müasir texnologiyaya və yüksək istehsal gücünə malik, qiymətli kimyəvi məhsullar olan etilen və propilen istehsalı üçün nəzərdə tutulmuş ” EP-300 ” kompleksinin inşasına başlanıldı.

Həmin illərdə Sumqayıt kimya kombinatında (indiki “Üzvi sintez” zavodunda) yeni obyektlərin tikintisi daha sürətlə gedirdi. 1970-ci ilin dekabrında 10 min ton qliserin, 1971-ci ildə 40 min ton benzol və 33 min ton

izobutilen və polizobutilen, 1973-cü ilin mayında xlor və diafraqma üsulu ilə kaustik soda istehsal edən sexlər işə salındı. Elə həmin ildə propilen-qlikol qurğusu, bir il sonra dixloretan, 1975-ci ildə poliefir qətranı istehsal edən sexlər, 1980-ci ilin əvvəllərində isə istehsal gücü ildə 45 min ton olan divinil kompleksi, sonralar isə "EP-300" istehsalatının texnoloji tsiklini tamamlayan ən müasir texnologiyaya və polietilen istehsalı üzrə yüksək məhsuldarlığa malik olan, texnoloji avadanlığı xaricdən – Almaniya və Çexoslovakiyadan alınmış "Polimir-120" kompleksi istismara verildi.

O dövrdə kənd təsərrüfatının perspektiv inkişafını və tələbatını nəzərə alaraq, Sumqayıt superfosfat zavodunda regionda ilk dəfə olaraq dənəvər fosfor gübrələri istehsal edən, yüksək məhsuldarlıqlı müasir texnoloji kompleks işə salındı. Bundan əlavə həmin illərdə əhalinin kimyəvi məişət vasitələrinə tələbatını dolğun ödəmək məqsədilə respublikada yeni sex və istehsalatların tikintisi də vüsət almışdı. 1978-ci ildə "Məişət kimyası" zavodunda müasir texnologiya əsasında tikilmiş yeni sexin işə düşməsi ilə müəssisənin istehsal gücü iki dəfə artırılaraq ildə 60 min tona çatdırıldı.

Heydər Əliyevin uzaqgörən iqtisadi siyasəti nəticəsində 1971-ci ildə keçmiş SSRİ-də ilk dəfə olaraq Bakı şin zavodunda iri yük və yüngül minik maşınları, həmçinin kənd təsərrüfatı maşınları, motosikllər üçün şin istehsalı xətti işə salındı. Müəssisənin modernləşdirilməsi respublikanın iqtisadiyyatına mühüm təsir göstərdi.

Ölkə rəhbəri Heydər Əliyevin müdrik iqtisadi siyasəti nəticəsində neft-kimya və kimya kompleksində geniş miqyaslı yenidənqurma tədbirlərinin həyata keçirilməsi sənayenin bu vacib sahəsinin Azərbaycan iqtisadiyyatında aparıcı yer tutmasını təmin etdi. 1980-ci illərin əvvəllərində ölkənin kimya kompleksində bütün sənaye potensialının 20 faizi cəmlənmişdi, sənayedə işləyənlərin səkkizdə biri məhz bu sahədə çalışırdı.

Bəli, bu gün respublikanın kimya müəssisələrinin bir çox yeni istehsalat sahələrinin genişləndirilməsi, yeni texnologiya və avadanlıqların tətbiqi, həmçinin ölkənin kimya sənayesinin haqlı olaraq avanqardı sayılan nəhəng "EP-300" və "Polimir-120" komplekslərinin yaradılması, onların sayəsində əldə edilmiş uğurlar və böyük iqtisadi səmərə bilavasitə dahi rəhbərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun uzaqgörən iqtisadi siyasəti nəticəsində Azərbaycan hələ ötən əsrin 70-80-ci illərində bu cür müasir və unikal qurğulara malik olmuşdur. Ulu öndərin səyi nəticəsində yaradılmış iri kimya müəssisələri həmin dövrdə yalnız Azərbaycan iqtisadiyyatının deyil, bütövlükdə regionun inkişafında həlledici rol oynamışdır.

Bir zaman ulu öndərin müdrikcəsinə və uzaqgörənliklə söylədiyi "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir!" sözləri respublikanın gələcək inkişafı üçün onun fikir və layihələrinin genişliyindən, əhatəliliyindən xəbər verirdi. Heydər Əliyev tərəfindən vaxtilə kimya kompleksinin inkişafı üçün yaradılmış zəngin istehsalat bazası əsasında bu gün " Azərikimya " Dövlət Şirkətinin müəssisələri respublikamızın mühüm sahələrini – Azərbaycan Dövlət Neft Şirkətini, kənd təsərrüfatını, həmçinin MDB və qərb dövlətlərinin müvafiq neft-kimya müəssisələrini, firmalarını öz qiymətli məhsulları ilə təchiz edir.

Respublikamızın kimya kompleksinə daxil olan müəssisələr hazırda ikinci yüksəliş dövrünü yaşayır. Azərbaycan kimya sənayesinin bugünkü bütün uğurları, böyük perspektivə istiqamətlənmiş yüksəlişi xalqımızın müdrik rəhbəri, uzaqgörən siyasətçisi, iqtisadi islahatlar və yeniliklər müəllifi Heydər Əliyevin müstəqil Azərbaycanımızın iqtisadiyyatının dinamik və sürətli inkişafı, xalqın xoşbəxt gələcəyi naminə böyük və gərgin əməyinin real nəticəsidir.

Heydər Əliyev 1993-cü ilin 15 iyununda Azərbaycan hakimiyyətinə yenidən qayıtdıqdan sonra ölkə kimyasının inkişaf etdirilməsi üçün bütün lazımi tədbirləri görmüş, onun tənəzzülə uğramasının qarşısını almışdı.

Azərbaycanın kimya və neft-kimya kompleksinin daha sürətli inkişafını təmin etmək məqsədilə 1994-cü ildə böyük uğurlar vəd edən "Əsrin müqaviləsi" imzalandıqdan sonra kimya kompleksinin də müasir tələblərə uyğun səviyyədə qurulması, kimyaçıların tez-tez üzləşdiyi enerji probleminin birdəfəlik aradan qaldırılması məqsədilə Heydər Əliyev bu dəfə üzünü Şərqə – ən müasir və yüksək məhsuldarlıqlı texnologiyalar istehsalçısı olan Yaponiyaya tutur. Ulu öndərin 1998-ci ildə bu ölkəyə tarixi səfəri zamanı əldə olunmuş razılığa əsasən artıq bir il sonra Sumqayıtda etibarlı enerji mənbəyi olan buxar-generator kompleksinin özülü qoyuldu. Onun təkcə kimya sənayesi üçün deyil, bütövlükdə Azərbaycan iqtisadiyyatı üçün mühüm əhəmiyyətini nəzərə alan Heydər Əliyev həmin kompleksin özülqoyma mərasimində iştirak edərək, kimyaçılar qarşısında proqram xarakterli geniş nitq söylədi. Ölkə Prezidentinin kimya sənayesinə diqqət və qayğısına cavab olaraq kimyaçılar yeni kompleksin tikintisini 2001-ci ilin iyulunda başa çatdırdılar. Azərbaycanın kimya sənayesinə bu qiymətli töhfəni kimyaçılara təqdim etmək üçün yenidən Sumqayıta gələn Heydər Əliyev həm bu sahədə çalışan minlərlə mütəxəssis və fəhlənin, həm də özünün istək və arzularının həyata keçməsindən böyük bir fərəh duyaraq, böyük nikbinliklə dolu olan çıxışında ölkə kimyaçılarına belə bir nəhəng enerji blokunun vaxtında istifadəyə verilməsinə görə öz dərin təşəkkürünü bildirdi. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə uzun illər ərzində yeni sənaye mərkəzi olan Sumqayıt şəhərində regionda ən böyük neft-kimya və kimya potensialına

malik istehsal sahələri yerləşdirilmiş, böyük texnoloji nəqliyyat, enerji, sosial-mədəni, səhiyyə obyektləri, elmi-tədqiqat institutları, təhsil ocaqları və digər infrastruktur yaradılmış, peşəkar kimyaçıların bir neçə nəsli yetişmişdir. Son illərdə isə ölkəmizdə zəngin karbohidrogen ehtiyatları istismara cəlb olunmuşdur ki, bu da yeni neft-kimya kompleksinin yaradılması və inkişaf etdirilməsi üçün böyük perspektivlər açmışdır.

Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizdə neft-kimya və kimya sənayesinin perspektiv inkişafı ilə bağlı göstərişlərinə uyğun olaraq "Azərikimya" Dövlət Şirkəti 2006-cı ilin əvvəllərindən başlayaraq beynəlxalq prosedur qaydaları üzrə neft-kimya sahəsində dünyada böyük təcrübəyə malik olan və tender üsulu ilə seçilmiş – texniki məsləhətçi "Technip ", texniki iqtisadi əsaslandırmanı hazırlayan "Nexant", hüquq məsələləri üzrə məsləhətçi "White & Case " şirkətləri və maliyyə məsləhətçisi "Societe Generale " Bankı ilə birgə layihə üzrə lazımi texniki-iqtisadi əsaslandırma sənədləri toplusunu hazırlamışdır. Bu böyük layihənin həyata keçirilməsi Azərbaycanın daxili tələbatını ödəməklə bərabər "Azərikimya" Dövlət Şirkətinə dünya bazarında mövqelərini xeyli möhkəmləndirməyə imkan verəcəkdir.

Ən müasir texnologiyalar əsasında yaradılacaq 19 zavoddan ibarət yeni kompleks geniş çeşiddə neft-kimya məhsulları və azot gübrələri istehsalı üzrə nəinki regionda, həm də bütün MDB məkanında ən iri kompleks olacaqdır. Bu kompleksdə yüksək və aşağı təzyiqli polietilen, polipropilen, benzol və digər çoxsaylı neft-kimya məhsulları istehsal olunacaqdır ki, bu da iqtisadiyyatın tikinti materiallarına, plastik boru və profillərə, boya, lak və həllediciləri, kimyəvi reagentlərə, rezin məmulatına, müxtəlif təyinatlı sintetik materiallara, mebel ləvazimatına, məişət avadanlığına, eləcə də sənaye və məişət təyinatlı qablara tələbatını tam təmin etməyə imkan verəcəkdir.

Kompleksdə qazın separasiya üsulu ilə təmizlənməsi üçün xammal qurğusu, ammonyak və karbamid istehsal edən qurğu, buxar krekinqi qurğusu, dəniz suyunu təmizləyən qurğu, eləcə də müxtəlif olefinlər, poliolefinlər və ətirli neft-kimya məhsulları istehsal edən çoxsaylı qurğuların inşası nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda ölkəmizin kənd təsərrüfatının azot gübrəsi ilə təmin edilməsi məqsədilə bu məhsulu istehsal edən zavodun 2008-2010-cu illərdə tikilməsi nəzərdə tutulmuşdur. Bununla əlaqədar "Azərikimya" Dövlət Şirkətinin sifarişi ilə "Nexant" tərəfindən illik gücü 1 milyon ton olan karbamid zavodunun texniki-iqtisadi əsaslandırma sənədləri hazırlanmış və hazırda layihənin növbəti mərhələləri üzrə işlər uğurla həyata keçirilməkdədir. Bu zavodun işə düşməsi ölkəmizdə bitkiçilik məhsullarının istehsalının artırılması üçün azot gübrələrinə olan tələbatı tam ödəməklə yanaşı artıq qalan gübrənin digər ölkələrə ixrac edilməsi nəticəsində iqtisadiyyatımıza əlavə valyuta axınına şərait yaradacaqdır.

Yeni kompleksin inşasına hazırlıqla bağlı dünyanın ən nüfuzlu, bu sahədə zəngin təcrübəyə malik şirkət və firmaları ilə birgə artıq üçüncü ildir ki, aparılan gərgin və səmərəli işlər indi uğurlu sonluğunu gözləyir. Buna heç bir şübhə yoxdur. Çünki bütün görüləcək işlər çox möhkəm bir özül – Heydər Əliyev ideyaları üzərində dayanır!

"**Xalq qəzeti**".- 2009.-12 iyun.- N 126.- S.3.

# HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏTİNDƏ NƏQLİYYAT-KOMMUNİKASİYA VƏ ENERJİ DƏHLİZLƏRİ MƏSƏLƏSİ

**Əli HƏSƏNOV**
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının
İctimai-siyasi məsələlər şöbəsinin müdiri,
tarix elmləri doktoru, professor

**Tarixən Azərbaycanın əlverişli geostrateji və coğrafi mövqeyi ona həm Şərq-Qərb, həm də Şimal-Cənub əlaqələrində əsas körpü kimi çıxış etməyə imkan verib. Lakin müstəqil dövlətin olmaması və müstəqil siyasətin yürüdülməməsi səbəbindən bu əlverişli mövqedən Azərbaycanın maraqlarına uyğun şəkildə istifadə etmək mümkün olmamışdı. Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlişindən sonra Azərbaycan bu imkandan yararlanmağa başlamışdır. Bu gün ölkənin istər regionda, istərsə də ümumilikdə dünyada tutduğu mövqe və rola nəzər salanda tam əminliklə söyləmək olar ki, Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan öz tarixi missiyasını yerinə yetirmək imkanı əldə edib.**

Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra respublikanın beynəlxalq əhəmiyyətli qlobal nəqliyyat-kommunikasiya xətlərinin kəsişdiyi əlverişli coğrafi məkanda yerləşməsini nəzərə alaraq, Azərbaycanda bu sahənin yenidən qurulması və modernləşdirilməsini iqtisadi inkişaf strategiyasının əsas prioritetlərindən biri kimi müəyyənləşdirdi.

Yeri gəlmişkən, bu strateji siyasi kurs Azərbaycan Prezidenti İlham Əliyevin də son 5 il ərzində qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrinin gerçəkləşdirilməsi istiqamətindəki fəaliyyətinin əsasını təşkil edib. İlham Əliyevin 24 noyabr 2004-cü il tarixli “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” fərmanı və 11 fevral tarixli “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair ” Dövlət Proqramında da nəqliyyat-kommunikasiya şəbəkəsinin modernləşdirilməsinə və yenidən qurulmasına xüsusi diqqət ayrılıb.

Qeyd edilməlidir ki, 2004-cü ildən etibarən Azərbaycan hökuməti daxili nəqliyyat-kommunikasiya infrastrukturunun inkişaf etdirilməsi, ölkəni xarici dövlətlərlə birləşdirən quru, dəniz, hava və dəmir yolu strukturlarının, yol və limanların, nəqliyyat və daşıma vasitələrinin yeniləşdirilməsi və yenidən qurulması üçün iri investisiya layihələri həyata keçirməyə başlayıb. Təkcə 2008-ci ildə ölkədə yol-nəqliyyat və digər bu yönlü infrastrukturun genişləndirilməsi və yenidən qurulmasına 2 milyard manatdan artıq vəsait ayrılıb.

Vaxtilə regionda və ümumilikdə dünyada gedən qlobal prosesləri nəzərə alan Heydər Əliyev Azərbaycanın beynəlxalq inteqrasiya prosesində iştirakı baxımından olduqca vacib olan transmilli yükdaşımaya, nəqliyyat-kommunikasiya dəhlizlərinin yaradılması prosesinə xüsusi önəm verirdi və Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrini birmənalı şəkildə dəstəkləyirdi.

Məlum olduğu kimi, nəqliyyat dəhlizlərini və kommunikasiyalarını bəzən həyat arteriyası adlandırırlar. Çünki bunlar olmadan, zəngin təbii resurslara malik dövlətlər belə iqtisadiyyatının dirçəlişi və inkişafını təmin edə, dünya ölkələri ilə sərbəst ticarət əlaqələri qura bilməz. Odur ki, nəqliyyat-yükdaşıma sisteminə nəzarət etmək xarici ticarətə təsir imkanlarını əlində saxlamaq dünyada bu günün əsas geostrateji tələblərindəndir.

Təsadüfi deyil ki, müxtəlif geosiyasi güc mərkəzləri arasında gedən beynəlxalq rəqabət yalnız təbii ehtiyatlar deyil, həm də bu ehtiyatları dünya bazarlarına çıxaracaq vasitələr – nəqliyyat dəhlizləri və kommunikasiyalar uğrunda aparılır.

SSRİ-nin dağılması və vaxtilə Sovet İttifaqının tərkibinə daxil olan respublikaların müstəqillik qazanmasından sonra Şərq-Qərb nəqliyyat-kommunikasiya və enerji dəhlizləri məsələsi daha aktual xarakter aldı. Regionu nəzarətində saxlamağa və alternativ enerji dəhlizlərinin yaranmasına mane olmağa çalışan Rusiyanın müqavimətinə baxmayaraq, Amerika Birləşmiş Ştatları və Avropa İttifaqı bu istiqamətdə səylərini aktivləşdirdilər. Onlar TRASEKA adlanan layihə çərçivəsində Avropanı Asiya ilə birləşdirən nəqliyyat-kommunikasiya sisteminin qurulmasına, şərti olaraq “Böyük İpək yolu ” adlandırılan transmilli layihənin həyata keçirilməsinə başladılar.

Bu gün rusiyalı analitiklər bildirirlər ki, Qərb, ilk növbədə isə Birləşmiş Ştatlar, Rusiyadan yan keçən qlobal nəqliyyat dəhlizi yaratmaqla, faktiki olaraq, Moskvanın Avrasiyadakı monopoliyasına son qoydular. 1995-ci ildə ABŞ-da nüfuzlu amerikalı siyasətçilər və politoloqların iştirakı ilə keçirilmiş konfransda açıq şəkildə bəyan edilib ki, “bu gün infrastruktur dəhlizlərinə nəzarət, dünya siyasətində dominantlıq üçün əsas vasitədir”.

Rusiyanın müqavimətinə gəldikdə, qeyd olunmalıdır ki, Moskva SSRİ dönəmində oynadığı rolu indi oynaya bilmir. Çünki SSRİ Avropa ilə Asiyanı birləşdirən güclü nəqliyyat sisteminə malik idi və ildə yalnız tranzit daşımalardan milyardlarla dollar gəlir götürürdü. Sovet İttifaqının dağılmasından sonra isə bu tranzit yollarının böyük əksəriyyəti keçmiş sovet respublikalarının ərazilərində qaldı. Yalnız bir faktı söyləmək kifayətdir ki, 1990-cı illə müqayisədə, TRANSSİBİR dəmir yolu ilə daşınan yüklərin həcmi 6 dəfə, konteyner daşımalarının həcmi isə 8 dəfə azalıb.

Digər tərəfdən, bu gün nəqliyyat-kommunikasiya sahəsində əvvəlki mövqelərini bərpa etməyə çalışan Rusiya artıq dünya birliyi tərəfindən dəstəklənən iri layihələrlə rəqabət aparmaq məcburiyyətində qalır.

Bu layihələrin ən önəmlilərindən biri, məhz Azərbaycanın mühüm rol oynadığı TRASEKA layihəsidir.

Qeyd edək ki, bu, Avropa İttifaqının SSRİ dağıldıqdan sonra – 1991-ci ildən hazırladığı və maliyyələşdirdiyi TASİS proqramı çərçivəsində reallaşdırılan ən iri layihələrdən biridir. TASİS proqramı ilə Avropa İttifaqı yeni, müstəqil dövlətlərdə iş aparmaq, demokratik islahatlar keçirmək, bazar iqtisadiyyatı infrastrukturları yaratmaq, ölkələrarası ticarət, nəqliyyat, gömrük-keçid işlərini inkişaf etdirmək niyyətini ortaya qoymuşdu. Və məhz bu proqram çərçivəsində 1993-cü ildə Brüsseldə Avropa İttifaqının təşəbbüsü ilə TRASEKA (Trans-Europe-Caucasus-Asia) layihəsi irəli sürüldü və Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Tacikistan və Ermənistan nümayəndələrinin iştirakı ilə onun müzakirəsi keçirildi. Müzakirənin nəticəsi olaraq imzalanmış "Brüssel bəyannaməsi"nə əsasən, qədim Şərq-Qərb "İpək yolu " dəhlizinin yeni şəraitdə bərpası, nəqliyyat-kommunikasiya infrastrukturlarının yenidən qurulması və inkişaf etdirilməsi qərara alındı.

Bu layihəni reallaşdırmaqda Avropa İttifaqı ilk növbədə müstəqil dövlətlərin alternativ nəqliyyat dəhlizləri vasitəsilə Avropa və dünya bazarlarına çıxışını təmin etmək, bu dövlətlərin siyasi və iqtisadi cəhətdən ətraf ölkələrdən asılılığının qarşısını almaq, regional əməkdaşlığın möhkəmlənməsinə şərait yaratmaq və beynəlxalq maliyyə mərkəzlərinin regiona sərmayə qoyuluşunu həvəsləndirmək istəyirdi.

Azərbaycanın əlverişli coğrafi mövqeyi, bu nəqliyyat dəhlizinin əsas məntəqələrindən biri kimi çıxış etməsi və Prezident Heydər Əliyevin Şərq-Qərb nəqliyyat-kommunikasiya və enerji dəhlizləri məsələsində tutduğu prinsipial mövqe və yürütdüyü uzaqgörən xarici iqtisadi siyasət, TRASEKA layihəsinin reallaşmasına mühüm töhfə verdi.

TRASEKA layihəsi üzrə ən mühüm tədbir – beynəlxalq konfrans da məhz Heydər Əliyevin diplomatik səyləri ilə 1998-ci ilin sentyabrında Bakıda keçirilib. Həmin konfransda 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndələri layihənin reallaşdırılmasının texniki və iqtisadi tərəflərini özündə əks etdirən "Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas saziş" (Əsas Saziş) adlanan mühüm sənədi imzalayıblar.

Bu sənədin ərsəyə gəlməsində də Heydər Əliyevin əvəzsiz xidmətləri olub. Təsadüfi deyil ki, TRASEKA hökumətlərarası komissiyasının daimi katibliyinin mənzil-qərargahı da Bakı şəhərində yerləşir. 21 fevral 2001-ci ildən Bakıda fəaliyyətə başlayan TRASEKA hökumətlərarası komissiyası daimi katibliyinin ofisi "Böyük İpək Yolu " boyunca hərəkət edən beynəlxalq yüklərin daşınma və hərəkətini tənzimləmək, Əsas Sazişə qoşulan ölkələrdə qanunvericilik və maliyyə-iqtisadi mühitlə bağlı məsələlərin həll edilməsinə kömək məqsədilə yaradılıb.

Avropa-Qafqaz-Asiya ölkələri arasında yüklərin daşınmasını təmin edən bu layihə keçən illərdə Azərbaycan iqtisadiyyatının inkişafında, nəqliyyat infrastrukturunun formalaşmasında ciddi rol oynayıb.

Şərqlə Qərb arasında körpü rolunu oynayan Azərbaycanın Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsində aparıcı yer tutması respublikanın dünya ölkələri ilə inteqrasiyasının daha da dərinləşməsinə xidmət edir. Bu isə nəinki iqtisadi, həm də siyasi sabitlik və təhlükəsizlik baxımından böyük əhəmiyyətə malikdir.

Bundan başqa, TRASEKA layihəsi Avropa ilə Asiya arasında nəqliyyat yolunu qısaltmaqla, külli miqdarda vəsaitə qənaət etmək imkanı yaradır. Bu gün Avropa ilə Asiya arasında ticarət dövriyyəsinin həcmi 2 trilyon dolları ötür, nəqliyyat xərcləri isə ildə 200 milyard dollara çatır. Nəzərə alsaq ki, TRASEKA layihəsi çərçivəsində malların daşınması, hazırda Avropa ilə Cənubi Asiyanı birləşdirən Süveyş kanalından 20 gün tez başa gəlir, onda yaxın gələcəkdə Azərbaycanın dünyanın əsas tranzit ölkələrindən birinə çevriləcəyini proqnozlaşdırmaq olar.

2009-cu ildən Avropa Komissiyası TRASEKA proqramı çərçivəsində üç layihənin reallaşdırılmasına başlayıb. Bunlardan birincisi "Qərbi MDB və Qafqaz ölkələri üçün beynəlxalq logistika mərkəzləri" layihəsidir. Bu layihənin əsas vəzifəsi logistika imkanlarının, şəbəkələrin və multimodal nəqliyyatın qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi yolu ilə beynəlxalq ticarət və malların TRASEKA dəhlizi ilə hərəkətinə yardım etməkdir. Layihə çərçivəsində TRASEKA dəhlizi üzrə logistika mərkəzləri şəbəkəsinin yaradılmasını nəzərdə tutan

maliyyə, texniki, ekoloji və institusional şəraitin yaradılması, tədqiqatların aparılması planlaşdırılır. Bu layihə Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova və Ukraynanı birbaşa, Bolqarıstan, Rumıniya və Türkiyəni isə bilavasitə əhatə edəcək.

Bundan əlavə, "TRASEKA ölkələrində aviasiya sahəsində ictimai və texniki təhlükəsizlik " layihəsinin gerçəkləşdirilməsinə başlanılıb. Reallaşma müddəti 24 ay olan bu layihə Azərbaycan, Ermənistan, Bolqarıstan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Rumıniya, Tacikistan, Türkiyə, Ukrayna və Özbəkistanı əhatə edəcək. Layihədə məqsəd Avropa İttifaqı ilə qonşu ölkələrdə, həmçinin Mərkəzi Asiya ölkələrində mülki aviasiya sahəsində beynəlxalq və Avropa standartlarına uyğun hava nəqliyyatının ictimai və texniki təhlükəsizliyinin təkmilləşdirilməsidir.

Nəhayət, reallaşdırılmasına başlanılan üçüncü layihə "Qara və Xəzər dənizlərində dəniz magistralları " layihəsidir. Beş ölkəni – Azərbaycan, Gürcüstan, Qazaxıstan, Türkmənistan və Ukraynanı əhatə edən layihədə məqsəd Qara və Xəzər dənizlərində qarşılıqlı fəaliyyət şəbəkəsinin təkmilləşdirilməsi və multimodal nəqliyyat yolu ilə Avropa-Qara dəniz regionu – Qafqaz-Mərkəzi Asiya dəhlizində ticarətə və nəqliyyata yardımın göstərilməsidir. Layihənin əsas vəzifəsi Qara dəniz və Xəzər dənizinin qonşu ölkələrini Avropa İttifaqının genişlənmiş ərazisi ilə birləşdirən "Dəniz magistralları " konsepsiyasına uyğun əlverişli intermodal yük nəqliyyatına təsir və dəstək göstərməkdən ibarətdir. Layihə başlıca olaraq, dəmiryolu, avtomobil və çox güman k, eləcə də İliçiyevck-Odessa-Poti-Bakı-Aktau marşrutu üzrə daxili su nəqliyyatını nəzərdə tutur.

Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi tranzit-keçid dəhlizləri siyasəti sahəsində əldə olunmuş ən böyük uğurlardan biri də Bakı-Tbilisi-Qars dəmir yolunun inşası layihəsidir. Bu layihə ciddi regional əhəmiyyətə malik olmaqla yanaşı, XXI əsrdə Asiya ilə Avropanı birləşdirən ən mühüm transmilli nəqliyyat dəhlizinə çevriləcək və regionda təhlükəsizliyin daha da artırılmasına xidmət edəcək.

Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi, ilk növbədə TRASEKA-nın rəqabət qabiliyyətliliyini artırmaq üçün nəqliyyat daşımalarına tətbiq olunan rüsum və tariflərin rasional səviyyəsinin müəyyən edilməsini və ucuzlaşmasını təmin edəcək.

Dəmir yolunun tikintisi layihəsi üzrə üçtərəfli Azərbaycan-Gürcüstan-Türkiyə deklarasiyası 2005-ci il mayın 25-də Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri tərəfindən imzalanıb. Azərbaycanın təkidi ilə Ermənistan bu layihədən kənarda saxlanılıb ki, bu da dərhal bəzi beynəlxalq təşkilatlar və dövlətlərin bu layihənin reallaşmasına mane olmaq üçün hərəkətə keçməsini şərtləndirib.

Ümumiyyətlə, Azərbaycanın iştirak etdiyi və Ermənistandan yan keçən bütün beynəlxalq layihələrin reallaşmasına dünyada və regionda mane olmaq istəyən qüvvələr olub və bu gün də var. Amma Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi layihələr, əsasən, Rusiyanın müqaviməti ilə üzləşirdisə, Bakı-Tbilisi-Qars layihəsi Birləşmiş Ştatların bəzi dairələrinin də narazılığı ilə rastlaşdı: 2006-cı ildə ABŞ Prezidenti Corc Buş erməni lobbisinin təsiri ilə Qars-Axalkalaki-Bakı dəmir yolu layihəsinin maliyyələşdirilməsinə qadağa qoyan qanunu imzaladı.

Lakin Azərbaycan rəhbərliyinin prinsipiallığı və qətiyyəti bu dəfə də öz nəticəsini verdi və Prezident İlham Əliyevin diplomatik səyləri nəticəsində, 2007-ci ilin fevralında Tbilisidə bu dəmiryolunun tikintisinə dair çərçivə sazişi imzalandı.

Layihə çərçivəsində 105 km uzunluğunda yeni dəmiryolu (76 km Türkiyə və 29 km Gürcüstan ərazisindən keçməklə) qurulacaq. Bundan əlavə, Gürcüstanda dəmiryolunun 183 km-lik hissəsinin rekonstruksiya edilməsi, qatarların Gürcüstandakı mövcud dəmiryollarından sonra Avropa dəmiryollarında hərəkət edə bilməsi üçün Axalkalakidə keçid məntəqəsinin tikilməsi nəzərdə tutulur.

422 milyon, infrastrukturla birlikdə isə 600 milyon dollar həcmində dəyərləndirilən bu layihə reallaşdırılandan sonra yüklərin Türkiyəyə və Avropanın şimalı ilə Aralıq dənizi regionuna, Rusiya və Qazaxıstandan Azərbaycan vasitəsilə Gürcüstana daşınmasına imkan yaranacaq. Analitiklərin fikrincə, ilk vaxtlar illik yük buraxılışı 5 milyon ton olacaq bu dəmir yolu, üç ildən sonra 10-15 milyon ton, tam gücü ilə işləməyə başlayanda isə 20 milyon ton yük daşıya biləcək.

2007-ci ilin fevralında Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin imzaladığı yekun razılaşmadan sonra isə dəmir yolunun inşasına başlanılıb.

Göründüyü kimi, Azərbaycan, bu dəmir yolu layihəsinin, demək olar ki, lokomotivi hesab olunur. Onun maliyyə dəstəyi nəticəsində həm Türkiyə sərhədindən Gürcüstana, həm də Gürcüstandan Azərbaycan sərhədinə qədər tikilməsi və modernləşdirilməsi nəzərdə tutulan dəmiryol layihəsi artıq reallaşmağa başlayıb. Yaranan maliyyə problemləri də birbaşa Azərbaycanın köməyi ilə həll olunur. Məsələn, Azərbaycan dəmir yolunun Gürcüstandan keçən hissəsinin tikintisinə 220 milyon ABŞ dolları həcmində kredit ayırıb. İllik 1 faizlə 25 il müddətinə verilən bu krediti Gürcüstan dəmir yolu işə düşəndən sonra özünün tranzit gəlirləri hesabına ödəyəcək.

Təbii ki, bütün bu addımlar – istər alternativ nəqliyyat-kommunikasiya, istərsə də enerji dəhlizlərinin açılması yük və enerji daşımalarında monopolist mövqeyindən məhrum ola biləcək Rusiyada narazılıqla qarşılanıb.

Məsələn, "Böyük İpək Yolu"nun bərpasına dair TRASEKA layihəsinə görə, bu gün Avropa İttifaqından Cənubi Asiyaya aparılan yüklər daha çox Cənubi Qafqaz və Mərkəzi Asiya vasitəsilə daşınır. Bu mənada, Rusiya yeni formalaşan transkontinental nəqliyyat sistemində ciddi rəqabətlə üzləşib.

Rusiyanın Avrasiya qitəsinin, təxminən, 30 faizini təşkil etdiyini nəzərə alsaq, bu ölkə Avropa ilə Asiya arasında nəqliyyat körpüsü oynaya bilən geosiyasi güc mərkəzi funksiyasını öz üzərinə götürməyə çalışır.

Həmçinin unutmaq olmaz ki, Avropa İttifaqının 9 beynəlxalq nəqliyyat dəhlizindən 3-ü Rusiyanın ərazisindən keçir.

Bütün bunları nəzərə alan rusiyalı ekspertlərin hesablamalarına görə, bu ölkə Avropa-Asiya yükdaşımalarının, təxminən, 15 faizini "nəzarətə götürmək" iqtidarındadır. İnkişaf etmiş ölkələrin illik ixracat həcminin 250 milyard dollara çatdığını nəzərə alsaq, söhbət külli miqdarda vəsaitdən gedir.

Odur ki, Moskva reallaşdırılan yeni layihələrin qeyri-rentabelli və effektsiz olması haqda təsəvvür formalaşdırmaqla yanaşı, həm də alternativ planlar səsləndirməkdədir.

Rusiya hökumətinin qəbul etdiyi "Beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı" federal proqramı da məhz bu mövqelərin bərpasına yönəlib.

2000-ci il sentyabrın 12-13-də Sankt-Peterburqda Nəqliyyat Məsələlərinə dair II Beynəlxalq Avrasiya Konfransı keçirilib və burada 37 ölkədən 500-dən artıq nümayəndə iştirak edib. Bu tədbirdə iştirak edənlər də Rusiyanın ərazisindən istifadənin, onun nəqliyyat kommunikasiyaları və yük daşınma imkanlarının Avrasiyanın iqtisadi-ticarət əlaqələrinin möhkəmlənməsi baxımından əhəmiyyətini bir daha vurğulayıblar.

Məhz bu konfransda Şərqi Avropanı Yaxın Şərq və Cənubi Asiya ilə birləşdirəcək "Şimal-Cənub" nəqliyyat dəhlizinin yaradılmasına dair sənəd imzalanıb. Qeyd edək ki, bu dəhliz TRASEKA-ya alternativ olaraq Rusiya, Hindistan və İran tərəfindən ortaya atılan layihə olsa da, Azərbaycan məmnuniyyətlə ona qoşulmağa razılıq vermişdir. Bu dəhlizin fəaliyyəti Hindistandan gələn yüklərin gəmi vasitəsilə Süveyş kanalından keçib, Ümid burnunu dolanaraq İranın Bəndər-Abbas limanına çatdırılmasını, buradan da onların dəmiryolu vasitəsilə Azərbaycan ərazisindən keçməklə Rusiya və digər ölkələrə ötürülməsini nəzərdə tutur.

Azərbaycanın bu layihəyə münasibətini rəsmi Bakının uzaqgörən və müstəqil siyasət yürütdüyünün daha bir göstəricisi saymaq olar.

Belə ki, Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizində də iştirak etməyə hazır olduğunu bəyan etməklə, mühüm siyasi və iqtisadi dividentlər qazanıb. 2001-ci ilin aprelində Tehranda Rusiya və İran arasında nəqliyyat sahəsində imzalanmış memorandumda qeyd edilir ki, Şimal-Cənub nəqliyyat dəhlizinin genişləndirilməsi üçün məqsədəuyğun istiqamətlərdən biri də Rusiya-Azərbaycan-İran dəmir yolu marşrutunun inkişaf etdirilməsidir.

Azərbaycan layihəyə qoşulmaqla, bir tərəfdən Rusiya, İran və başqa qonşularla Şərq-Qərb daşımalarında yaranmış gərginliyi aradan qaldırmağa nail oldu. Digər tərəfdən, bu nəqliyyat dəhlizindən əldə edəcəyi tranzit və gömrük rüsumları gəlirlərindən başqa, həm də daha çox perspektivdə Naxçıvan Muxtar Respublikasının blokadadan çıxarılması imkanı maraqlandırır. Azərbaycan İran vasitəsilə Naxçıvanla dəmir yolu əlaqəsi qurmağa çalışır.

Beləliklə, Azərbaycanın əlverişli geoiqtisadi mövqeyi ona həm Şərq-Qərb, həm də Şimal-Cənub əlaqələrində əsas körpü rolunda çıxış etməyə imkan verir. Faktiki olaraq iki nəhəng nəqliyyat dəhlizinə qoşulan Azərbaycan özünün iqtisadi müstəqilliyini artırmaqla yanaşı, həm də Avropa və dünya bazarlarına alternativ nəqliyyat marşrutları ilə çıxmaq imkanı qazanır, regionda enerji və yük axınları üçün qovşaq rolunu oynayır.

Heydər Əliyev Azərbaycanın regionda və dünyada aparıcı mövqeyini bir daha təsdiqləyən və ölkəmizin iqtisadi və siyasi təhlükəsizliyi baxımından mühüm rol oynayan amil kimi enerji dəhlizləri və daşımaları məsələsinə də xüsusi önəm verirdi.

Məlum olduğu kimi, dünyanın müasir geosiyasi hədəflərinə təsir edən əsas faktorlardan biri məhz enerji və karbohidrogen ehtiyatlarının təhlükəsiz yollarla dünya bazarlarına çatdırılmasıdır. Bu mənada, Mərkəzi Asiya və Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının ixrac marşrutları, bu xətlərin hansı ölkələrin ərazilərindən keçməsi məsələsi mühüm geosiyasi əhəmiyyət daşıyır. Bu amil isə, öz növbəsində, ixrac boru kəmərlərinin çoxvariantlılığını zəruri edir.

Vaxtilə Xəzər hövzəsində hasil edilən neft və qaz SSRİ-nin daxili tələbatını ödəmək üçün istifadə edildiyindən, enerji daşıyıcıları müxtəlif kəmərlərlə yalnız Rusiyanın mərkəzi rayonlarına daşınırdı. SSRİ-nin süqutundan sonra da Moskva bölgənin enerji daşıyıcılarının nəqli üçün ənənəvi marşrutların saxlanılmasına və bununla da, bütün bölgə ölkələrinə təsir rıçaqlarının qorunub saxlanmasına çalışırdı. Ona görə də ilk günlərdən Xəzər hövzəsinin ucuz enerji ehtiyatları üzərində nəzarətini saxlamaq üçün Rusiya müxtəlif vasitələrdən istifadə

etməyə başladı. Lakin bütün cəhdlərə baxmayaraq, Azərbaycan, ABŞ və Avropa İttifaqının səyi ilə reallaşan yeni layihələrə mane ola bilmədi.

Azərbaycan öz enerji ehtiyatlarını dünya bazarına sərbəst çıxarmaq üçün bir neçə alternativ dəhlizin yaradılmasını vacib sayaraq, bu istiqamətdə öz tərəfdaşları ilə birgə işə başlayır və bütün maneələrə baxmayaraq, məqsədinə nail olur.

İlk olaraq, 1996-cı ilin yanvar ayında "Azərbaycan neftinin Bakı-Novorossiysk marşrutu ilə nəql edilməsi haqqında" Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında hökumətlərarası saziş imzalanır. 1997-ci ilin 12 oktyabrında isə həmin marşrut işə salınır. Şimal İxrac Marşrutu adlandırılan bu kəmər Səngəçal terminalından Xəzər dənizi sahili boyunca Rusiya ərazisindən Novorossiysk limanına neftin nəqlini nəzərdə tutur.

Uzunluğu 1400 kilometr, ötürmə qabiliyyəti gündə 115 min barel olan bu boru kəməri hələ SSRİ dövründən mövcud idi. Lakin bu kəmərin bir sıra qüsurları var idi ki, buna görə də yeni şəraitdə onun istismarı o qədər də sərfəli deyildi. Yüksək nəqliyyat məsrəfləri, məhdud ötürücülük qabiliyyəti və bahalı Azərbaycan neftinin ucuz Sibir nefti ilə qarışdırılması bu kəmərin Azərbaycan üçün ən ciddi qüsuru idi. Lakin Rusiya ilə kompromis tapmaq məqsədi ilə Azərbaycan neftin bir qisminin bu kəmərlə nəqlinə razılıq verdi.

Azərbaycan neftinin nəql olunduğu ikinci marşrut Qərb İxrac Kəməri – Bakı-Supsa idi. Bu kəmər 1999-cu il aprelin 17-də istismara verilib. Uzunluğu 850 kilometr, illik buraxılış qabiliyyəti 5 milyon tondur. Bakı-Supsa neft kəməri Səngəçal terminalından Azərbaycan ərazisi ilə keçərək Gürcüstanın Qara dəniz sahillərində Supsa terminalınadək uzanır. Qeyd edək ki, bu kəmərin tikintisi zamanı köhnə Bakı-Batumi (150 kilometrlik) kəmərinin qalıqlarından istifadə olunmuşdur.

Heydər Əliyevin neft strategiyasının ən böyük uğuru, Azərbaycanın enerji daşıyıcılarının dünya bazarına çıxaracaq yeni, alternativ əsas ixrac boru kəməri – Bakı-Tbilisi-Ceyhan layihəsinin reallaşması oldu.

Məsələnin aktuallığı həm Bakı-Novorossiysk və Bakı-Tbilisi-Supsa neft kəmərlərinin Azərbaycanın getdikcə artan ehtiyaclarını ödəyə bilməməsi, həm də birinci kəmərin geosiyasi baxımdan rəsmi Bakıya təzyiq vasitəsinə çevrilə biləcəyi ilə bağlı idi.

Bakı-Tbilisi-Ceyhan layihəsinin reallaşması asan başa gəlmədi. Əvvəla ona görə ki, Bakı-Novorossiysk və Bakı-Supsa layihələrindən fərqli olaraq, bu kəmərin inşası regionun iki aparıcı geosiyasi oyunçusu – Rusiya və İranın açıq və dolayı müqaviməti ilə üzləşmişdi. İran kəmərin marşrutu ilə bağlı narazı olduğu halda, Rusiya ümumilikdə layihənin gerçəkləşməsinə bütün gücü ilə mane olmağa çalışırdı.

Belə bir prinsipial məsələdə qətiyyət və prinsipiallıq nümayiş etdirən Heydər Əliyev sonda kəmərin ən optimal variantı üzərində dayandı: o, regionun geosiyasi mənzərəsini və mövcud beynəlxalq münasibətlər sistemini nəzərə alaraq, Azərbaycan-Gürcüstan-Türkiyə marşrutu ilə çəkilməsini vacib saydı.

1999-cu il noyabrın 18-də İstanbulda keçirilmiş ATƏT-in sammiti çərçivəsində "Bakı-Tbilisi-Ceyhan" əsas ixrac boru kəməri vasitəsilə Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən Xəzər dənizindən çıxarılan əsas xam neftin nəqli haqqında" Sazişin ABŞ Prezidenti Bill Klintonun iştirakı ilə Azərbaycan Prezidenti Heydər Əliyev, Türkiyə Prezidenti Süleyman Dəmirəl və Gürcüstan Prezidenti Eduard Şevardnadze tərəfindən imzalanması region ölkələrinin strateji əməkdaşlığı və Avropaya inteqrasiyası sahəsində ciddi addım idi.

Bütün çətinliklər və problemlərə baxmayaraq, 2002-ci il sentyabrın 18-də Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə dünyanın ən böyük enerji layihəsi olan BTC-nin əsası qoyuldu. 4 ildən sonra – 2006-cı il iyulun 13-də kəmər istifadəyə verildi.

Bununla da, yalnız Azərbaycanın deyil, ümumilikdə regionun və Avropa məkanının enerji təhlükəsizliyinə xidmət edən strateji bir layihə əfsanədən gerçəkliyə çevrildi.

Qeyd edək ki, BTC-nin istismar müddəti 40 ildir, sonuncu 15 ili Azərbaycanın tam mülkiyyətinə keçəcək.

2007-ci il iyunun 16-da BTC layihəsinə rəsmən Qazaxıstan da qoşuldu. Həmin gün Almatıda Qazaxıstan və Azərbaycan prezidentləri Qazaxıstan neftinin Xəzər dənizi və Azərbaycan ərazisindən keçməklə Bakı-Tbilisi-Ceyhan vasitəsi ilə dünya bazarlarına çıxmasına dəstək və yardım barədə saziş imzaladılar. Bu razılaşma Qazaxıstan neftinin BTC ilə nəql olunması məqsədilə Aktau-Bakı sisteminin yaradılmasını nəzərdə tutur.

Qeyd edək ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri həm layihənin bilavasitə iştirakçısı olan dövlətlərin iqtisadi maraqlarını təmin edir, həm də hazırkı dövrdə son dərəcə aktual olan enerji təhlükəsizliyi probleminin həlli baxımından geniş imkanlar açır.

Məlum olduğu kimi, Qərb dövlətləri Xəzər hövzəsinə çıxış imkanı əldə etmək və neft idxalında alternativ imkanlar qazanmağa birqütblü enerji asılılığından azad olmaq üçün əsas vasitə kimi yanaşırlar. Bu

amil Azərbaycanın Cənubi Qafqazdakı strateji mövqeyini və nüfuzunu daha da artırır, respublikanın Avroatlantik məkana inteqrasiyası üçün geniş şərait yaradır.

Qeyd etmək lazımdır ki, bu layihənin yalnız Heydər Əliyevin qətiyyəti, prinsipiallığı və uzaqgörənliyi sayəsində baş tutduğunu layihənin bütün iştirakçıları etiraf edirlər. Kəmərə Azərbaycanın ümummilli liderinin adının verilməsi də təsadüfi deyil.

Beləliklə, Azərbaycan Qərbə alternativ enerji daşımaları üçün imkan qazanaraq birqütblü boru kəməri asılılığından çıxmağı bacardı.

Bakı-Tbilisi-Ceyhandan sonra regionun ikinci ən böyük enerji layihəsi olan Bakı-Tbilisi-Ərzurum qaz kəməri də olduqca strateji əhəmiyyətli bir layihədir. Özü də bu gün – Avropanın Rusiyadan enerji asılılığı mövzusunun son dərəcə aktuallaşdığı dövrdə bu layihənin əhəmiyyəti getdikcə daha da artır.

Bu kəmərin fəaliyyəti sayəsində Azərbaycan Qərbin mühüm qaz ixracatçısı və qlobal enerji təhlükəsizliyinin təminatçılarından birinə çevrilib.

Bakı-Tbilisi-Ərzurum boru kəməri Azərbaycan qazının "Şahdəniz" yatağından Türkiyə vasitəsi ilə Avropa bazarlarına nəqli üçün yaradılıb. Kəmərin uzunluğu 690 kilometrdir (442 kilometr – Azərbaycan hissəsi, 248 kilometr – Gürcüstan hissəsi). İlkin ötürmə qabiliyyəti ildə 7-8 milyard, maksimal ötürücülük imkanı isə 20 milyard kub. m olan kəmər 2006-cı ildə istismara verilib. Artıq 2007-ci ilin sonundan Bakı-Tbilisi-Ərzurum boru kəməri ilə ötürülən Azərbaycan qazı Türkiyə və İtaliya qaz sisteminin birləşməsi nəticəsində İtaliyaya ötürülməyə başlayıb.

Bakı-Tbilisi-Ərzurum qaz kəməri Azərbaycanın 1994-cü ildən başlayaraq həyata keçirdiyi enerji strategiyasının mühüm tərkib hissəsidir. Bu kəmər Cənubi Qafqazda strateji reallığı Azərbaycanın xeyrinə dəyişib, Türkiyə, Gürcüstan və Azərbaycanın enerji şəbəkələrini mərkəzləşmiş sistemə çevirib və nəhayət, Şərq-Qərb nəqliyyat dəhlizinin əhəmiyyətini xeyli artırıb.

Amma təbii ki, onilliklər boyu regionun enerji ehtiyatlarına nəzarət etmiş Rusiya alternativ qaz xətlərinin inşasına da olduqca qısqanclıqla yanaşır. Çünki bununla Rusiya qismən öz inhisarçı mövqelərini itirir. Hazırda Rusiya inhisarçı mövqeyindən istifadə edərək regionda istehsal olunan qazı bazar qiymətlərindən 3-4 dəfə ucuz qiymətə alaraq, Avropa bazarlarında yüksək qiymətlərə satır. Təkcə bunu qeyd etmək kifayətdir ki, 2003-cü ildə Rusiya və Türkilometrənistan arasında demək olar ki, bütün türkilometrən qazının 2009-cu ilədək Rusiya tərəfindən alınması ilə bağlı saziş imzalanmışdı.

Eyni sözləri Özbəkistan haqqında da söyləmək olar: bu ölkənin qaz yataqlarında işləmək hüququ xarici ölkələrdən yalnız Rusiyaya məxsusdur.

Bakı-Tbilisi-Ərzurum kəmərinin çəkilişi ilə başlamış alternativ xətt siyasəti bu vəziyyəti köklü şəkildə dəyişir və region ölkələrinə Rusiyanın nəzarətində olmayan enerji daşıyıcılarının ixracı marşrutlarından istifadə etmək imkanı yaradır.

Bakı-Tbilisi-Ərzurum kəməri yalnız regionun deyil, həm də Avropanın enerji təhlükəsizliyi məsələsində mühüm rol oynayan "Nabukko" layihəsinin əsasını təşkil edəcək. Yəni, belə demək mümkündürsə, "Nabukko"nun onurğa sütunu məhz Bakı-Tbilisi-Ərzurum qaz kəməri olacaq. Çünki gələcəkdə bu layihə Orta Asiya və Xəzər hövzəsi ölkələrinin qazını Yunanıstan, İtaliya və Avstriyaya çatdırmaq "Nabukko" qaz kəmərinə birləşdirmək və geniş bir şəbəkə yaradılmasını nəzərdə tutur.

Layihənin reallaşmasında ABŞ və Avropa İttifaqı ölkələri çox maraqlıdırlar. Çünki "Nabukko"nun reallaşması Avropa ölkələrinə Rusiyadan qaz asılılığından qurtarmağa imkan verəcək. Xatırladaq ki, son illərdə Rusiya dəfələrlə Avropa ölkələrini qazla imtahana çəkərək, öz siyasi niyyətlərinin həyata keçirilməsi üçün onlara təzyiq göstərməyə cəhd edib. Bu zaman ən müxtəlif metodlara əl atılıb: qazın satış qiymətinin artırılmasından tutmuş, nəql edilən qazın həcminin azaldılmasına qədər. Rusiya ilə Ukrayna arasında baş vermiş sonuncu qaz böhranı isə vəziyyətin artıq olduqca təhlükəli həddə çatdığını göstərdi. Xatırladaq ki, sonuncu böhran nəticəsində şaxtalı havada qazsız qalan Avropa ölkələrinə 2-3 milyard dollar məbləğində zərər dəyib.

Odur ki, Rusiyanın ildən-ilə enerjidən təsir vasitəsi kimi istifadə etməsi, digər tərəfdənsə, son illər Avropanın əsas yanacaq növlərindən sayılan qaza tələbatın artması "Nabukko" layihəsini daha da aktuallaşdırıb.

Amma bu istiqamətdə səylərin aktivləşməsi yalnız son qaz böhranı ilə bağlı deyil. Məsələ bundadır ki, yaxın 20 il ərzində Avropada qaza olan illik tələbatın 600 milyard kubmetrə çatacağı proqnozlaşdırılır. Tələbatın artması isə, bu sahədə inhisarçı mövqedən çıxış edən Rusiyadan asılılığın da artması anlamına gəlir, çünki indi Avropa ölkələri bu tələbatın xeyli hissəsini məhz bu ölkədən alınan "mavi yanacaq" hesabına ödəyirlər.

Qeyd etmək lazımdır ki, Avropa Azərbaycana enerji təhlükəsizliyi sahəsində etibarlı tərəfdaş kimi yanaşdığını daim nümayiş etdirib. Öz növbəsində, Prezident İlham Əliyev də ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu Azərbaycanın etibarlı tərəfdaş imicini bir qədər də möhkəmləndirib.

2006-cı ilin noyabrında Prezident İlham Əliyevin Belçikaya səfəri zamanı Azərbaycanla Avropa İttifaqı arasında enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq rəsmiləşdirilib. Noyabrın 7-də Prezident İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu Azərbaycan Respublikası və Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalayıblar. Sənəd Avropa İttifaqı ilə Azərbaycan arasında enerji tərəfdaşlıq münasibətlərini, Azərbaycanın Avropanın enerji bazarlarına daxil olmasını, Aİ-nin enerji təhlükəsizliyini və Azərbaycanda enerji menecmentini nəzərdə tutur.

Ekspertlər bu memorandumun imzalanmasından sonra Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında, o cümlədən "Nabukko" layihəsinin reallaşmasında daha aktiv iştirak edəcəyini proqnozlaşdırırdılar.

2008-ci ilin noyabrında Bakıda keçirilən IV Enerji Sammiti də enerji nəqli dəhlizlərinin yaradılmasının bütün dünyanın marağında olduğunu bir daha nümayiş etdirib. 21 ölkənin nümayəndələrinin və diplomatların, o cümlədən 6 dövlətin prezidentinin qatıldığı sammitdə çıxış edənlər bir daha bildiriblər ki, "Nabukko" layihəsi Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında həyati əhəmiyyət daşıyır və Avropa İttifaqı ilə Azərbaycan bu istiqamətdə sıx əməkdaşlıq etməlidirlər.

Prezident İlham Əliyev isə bəyan edib ki, Azərbaycanda başlanmış enerji layihələrinin bu gün daha geniş əməkdaşlıq üçün imkanlar açmasından qürur duyur. "Bu gün masa ətrafında Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Supsa, Odessa-Brodı-Plotsk-Qdansk və Nabukko layihələrinin iştirakçıları və digər nümayəndələr toplaşıblar. Bu layihələrin hamısı mühümdür. Bu layihələrin hamısının bir mənbəyi var – Xəzər dənizi, daha dəqiq desək, Azərbaycan" – deyə Azərbaycanın dövlət başçısı bildirib.

Sammitin yekunlarına dair qəbul olunmuş bəyannamədə deyilir ki, sammitin iştirakçıları enerji resurslarının hasilatçı ölkələri, tranzit və istehlakçı ölkələri arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığın möhkəmlənməsinə və genişlənməsinə, regional investisiya enerji layihələrinin həyata keçirilməsi üçün zəruri əlverişli şərait yaradılmasına tərəfdar olduğunu təsdiq edirlər.

Bəyannamədə Xəzər hövzəsindən neftin və qazın dünya və Avropa bazarlarına çatdırılması yollarının şaxələndirilməsinə yönəlmiş siyasətin davam etdirilməsinin vacibliyi vurğulanıb, iştirakçı dövlətlərin tələbatını daha tam təmin etməkdən ötrü Azərbaycanın təbii qazının regional və Avropa bazarlarına nəqli və tranziti üçün çoxvektorlu infrastrukturun yaradılmasına aid layihələrin həyata keçirilməsinin dəstəklənməsi ifadə olunub.

"Nabukko" layihəsinin reallaşdırılması istiqamətində növbəti mühüm addım isə 2009-cu ilin yanvarında Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilmiş enerji sammiti oldu.

Budapeşt sammitində çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev ölkəsinin Avropanın enerji təhlükəsizliyi məsələsində mühüm rol oynadığını, Azərbaycan etibarlı tərəfdaş ölkə olduğunu və öz təbii sərvətlərini Xəzər hövzəsindən Avropaya nəql etdiyini bildirib.

Azərbaycanın "Nabukko" layihəsini həmişə dəstəklədiyini bildirən Prezident İlham Əliyev qeyd edib ki, bu dəstək gələcəkdə də davam edəcək: "Bakıda keçirilən sammitdə Azərbaycan öz mövqeyini ortaya qoymuşdur. Bu layihədə iştirak edən bütün tərəflər əməkdaşlığa hazırdırlar. Bu gün Azərbaycan təkcə tranzit ölkə deyil, həm də enerji mənbələri ilə zəngin olan ölkədir".

Bu layihə çərçivəsində yaxşı tərəfdaşlıq əlaqələrinin yaranacağına əmin olduğunu bildirən Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan Avropa İttifaqına və Avratlantik məkana inteqrasiyaya üstünlük verir və bu siyasət bundan sonra da davam etdiriləcək.

Qeyd edək ki, dəyəri 8 milyard avro olan və ildə təqribən 26-32 milyard kubmetr qaz ötürəcək "Nabukko" kəmərinin inşası 2014-cü ilədək yekunlaşmalıdır. "Nabukko" boru kəməri ilə 2012-ci ildə Azərbaycan, sonra Qazaxıstan və Türkilometrənistan qazının nəqli nəzərdə tutulur. Növbəti mərhələdə, 2017-ci il üçün bu kəmərlə İran, İraq və Misir qazının nəqli də istisna olunmur.

"Nabukko" ilk qaz xəttidir ki, dünyanın bir çox regionu arasında əlaqə yaradacaq. Məlumat üçün bildirək ki, "Nabukko"nun uzunluğu 3300 kilometr olacaq. Kəmərin 2000 kilometri Türkiyə, 400 kilometri Bolqarıstan, 460 kilometri Rumıniya, 390 kilometri Macarıstan, 46 kilometri isə Avstriya ərazisindən keçəcək.

Avstriyanın Baumqarten məntəqəsinə çatdırılacaq qaz həcmlərinin böyük bir hissəsi bu ölkənin ərazisindən keçərək Mərkəzi və Qərbi Avropaya nəql olunacaq.

Layihənin reallaşması istiqamətindəki maneələrdən danışarkən, ilk növbədə, kəmərin inşasının maliyyələşdirilməsi məsələsinə toxunulur. Bəzi ekspertlərin fikrincə, hazırda dünyanı bürümüş maliyyə böhranı fonunda, layihə üçün maliyyə tapılması problemli görünür. Lakin Budapeşt sammitində bu məsələyə də aydınlıq gətirilib. Belə ki, Avropa İnvestisiya Bankının və Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentləri də Avropa üçün mühüm əhəmiyyət kəsb edən bu layihənin maliyyələşdirilməsinə hazır olduqlarını bildiriblər.

Beləliklə, yaxın illərdə Azərbaycanın önəmli rol oynayacağı növbəti qlobal layihənin reallaşmasının şahidi olacağıq. Bu isə Azərbaycanın bölgənin enerji ehtiyatlarının dünya bazarına nəqlində strateji önəm daşıyan ölkə statusunu daha da möhkəmləndirəcək.

Bu gün Azərbaycanın Avropanın nəqliyyat-kommunikasiya, yükdaşımaları və enerji təhlükəsizliyində mühüm rol oynadığı hamı tərəfindən birmənalı etiraf olunur. Ümummilli lider Heydər Əliyevin yeni neft, nəqliyyat-kommunikasiya və enerji dəhlizlərinə dair strategiyasını inamla davam etdirən Prezident İlham Əliyevin diplomatik səyləri nəticəsində Azərbaycan regionda heç bir ölkədən enerji asılılığı olmayan, öz tələbatını özü ödəməyə qadir yeganə ölkə qismində çıxış edir.

Artıq həm region ölkələri, həm də fövqəldövlətlər Prezident İlham Əliyevin dəfələrlə bəyan etdiyi "Azərbaycanın iştirakı olmadan regionda heç bir ciddi layihə gerçəkləşə bilməz" fikrini sübuta ehtiyacı olmayan fakt kimi qəbul edirlər.

"**Xalq qəzeti**".-2009.-14 iyun.-N128.-S.2-3

# TARİXİ QAYIDIŞ VƏ XALQIN QURTULUŞU

**Qafar ƏLİYEV,**
YAP Siyasi Şurasının üzvü

**… Mənə bu gün böyük etimad göstərdiyinə görə, Milli Məclisin üzvlərinə minnətdarlığımı bildirirəm. Sizi əmin edirəm ki, ağır bir yükü aparmağa çalışacağam və bu vəzifənin ləyaqətlə yerinə yetirilməsinə səy edəcəyəm. Bildirmək istəyirəm ki. Azərbaycanın bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram. Və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm… Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm… Ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm.**

**Göstərilən etimadı doğrultmayan şəxsə belə yüksək adın verilməsində təəccüblü heç nə yox idi. Əksinə, bu, planlı şəkildə başlanmış avantüranın davamı idi və səriştəsiz rəhbərliyin məsuliyyəti öz üzərindən atmasına istiqamətlənmişdi. Uydurma sərkərdənin uğursuz, günahsız qanlar bahasına başa gələn əməliyyatları zaman keçdikcə onu əsl "tövbə keçisi"nə çevirirdi. Nəticədə AXC İcraiyyə Komitəsinin fevral bəyanatı ilə Surət Hüseynov xain elan edildi. Bu bəyanat artıq Milli Qəhrəmana çevrilmiş Yun zavodunun direktorunu qane edə bilməzdi. Tezliklə Gəncədə mitinqlər başlandı, döyüş bölgələrindəki silahlı qüvvələr geri çağırıldı. Vəziyyəti düzəltmək üçün Gəncəyə ezam edilmiş Arif Hacıyev isə AXC İK-nin bəyanatını səhv adlandırdı. Söz yox ki, bu addım qarşıdurmanı kəskinləşdirməyə xidmət edirdi. Belə da oldu. Hakimiyyətdaxili düşmənlərin məntiqi nəticəsi olaraq 4 iyun hadisələri baş verdi.**

Bu hadisələr AXC-Müsavat iqtidarını şok vəziyyətinə salmışdı. Hadisələrin sürətlə cərəyan etməsi fonunda dövlət orqanlarının çaş-baş qalması, rəhbərliyin isə ümumiyyətlə iflic vəziyyətdən çıxa bilməməsi qabarıq şəkildə özünü büruzə verirdi. DİN və AXC informasiya mərkəzinin yaydığı məlumatlarda vəziyyət reallığa uyğun qiymətləndirilmir, hadisələrə görə bütün cavabdehlik S. Hüseynovun üzərinə atılırdı. İyunun 5-də xalqa müraciətində prezident Elçibəy gəncləri səbirli olmağa və vətəndaş sülhünü bərpa etməyə çağırırdı. Bununla da ən yüksək səviyyədə etiraf olunurdu ki, ölkədə vətəndaş qarşıdurması mövcuddur.

Bir məsələni xüsusi vurğulamaq yerinə düşər. AXC-Müsavat iqtidarının nümayəndələri istər o vaxt, istərsə də indi xalqın onları dəstəklədiyini bildirir, bəzi qüvvələrin kütləni çaş-baş saldığını iddia edirlər.

**Görəsən, dövlət və qeyri-hökumət təşkilatlarının, siyasi partiyaların ardı-arası kəsilməyən mitinqlərində, bölgələrdəki aksiyalarda kütlənin AXC -Müsavat iqtidarının istefasını tələb etməsini bu yarıtmaz hakimiyyətin nümayəndələri görmürdümü? Hansı xalq bu hakimiyyəti dəstəkləyirdi?**

Dünya tarixi praktikasında belə fakt yox idi ki, əli qana batmış hakimiyyəti xalq dəstəkləsin.

Hətta AXC-nin orqanı olan "Azadlıq" qəzeti yazırdı ki, "… **vəzifəli şəxslər, xüsusilə yerlərdə icra hakimiyyətinin, hüququ qoruyan orqanların, idarə və müəssisələrin rəhbərləri camaata o qədər zülm edib ki, dövləti, onun siyasətini o dərəcə hörmətdən salıblar ki, belə ağır vəziyyətdə camaat dövləti nəinki müdafiə etmir, ən yaxşı halda seyrçi mövqe tutur, ən pis halda isə qismən də olsa, dövlətə qarşı duranların tərəfinə keçir".**

Hadisələrə operativ şəkildə münasibət göstərmək iqtidarında olmayan iqtidar nəhayət, 5 gün sonra, iyunun 7-də Prezident Aparatında (PA) müşavirə keçirmək qərarına gəldi. Lakin bu müşavirə nəinki vəziyyəti düzəltdi, əksinə onu daha da ağırlaşdırdı.

Prezidentin nitqindəki qarmaqarışıqlıqda hakimiyyətin çaşqınlığı əyani şəkildə əksini tapırdı. Verilən təkliflər də ağlabatan deyildi. Müdafiə naziri D. Rzayevin məsələyə aydınlıq gətirmək cəhdi, daxili işlər naziri A. Abdullayevin nitqinin son ümidləri alt-üst etməsi Fəhmin Hacıyev kimi avantüristlərin məsuliyyətsiz fikirlər söyləməsinə şərait yaradırdı: **"Bu gündən etibarən konkret hərbi qüvvələrə icazə verilsin ki, Gəncə şəhərindən əhalinin çıxarılmasına və orada hərbi əməliyyatın keçirilməsinə imkan verilsin."**

AXC-Müsavat hakimiyyətində rəhbər vəzifədə təmsil olunmuş F. Hacıyevin "dahiyanə" təklifində, yəni 400 minlik şəhərin yerlə-yeksan edilməsini təklif edən iqtidar nümayəndəsinin "ixtisası"nda qeyri-adi heç nə yox idi. Çünki rəhbərlikdə oturanların hamısı belə təfəkkürlü insanlar idi. Həmin müşavirədə xüsusi diqqət cəlb edən məqam baş nazir P. Hüseynovun istefası oldu. Spiker İ. Qəmbərov bu addımı **"siyasi mədəniyyət normalarının tətbiqi" kimi dəyərləndirərək bildirmişdi ki, "hakimiyyət dəyişməsi, ayrı-ayrı vəzifələrdə**

**şəxslərin dəyişməsi qanun çərçivəsində, konstitusiya çərçivəsində, seçkilər yolu ilə, istefalar yolu ilə həll olunmalıdır. Zorakılıq, tank, küçə hərəkatı və s. yol ilə yox".**

Qəribədir ki, bunu məhz zorakılıq, tank, küçə hərəkatı və s. bu kimi yollarla hakimiyyəti mənimsəmiş AXC-Müsavat cütlüyünün ikinci şəxsi deyirdi. Bəlkə də buna görədir ki, o, əyləşdiyi binanın silahdaşları tərəfindən dəlik-deşik edilmiş divarlarını yadına salıb fikrinə bir az düzəliş edir: **"Ola bilər ki, bizə deyə bilərlər ki, siz özünüz da bu yoldan keçmisiniz. Ancaq biz hər halda hesab edirik ki, o dövrdə bu, zəruri idi. Çünki o dövrdə bunu demokratik şəkildə həll etməyə imkan verilmirdi". Bir qədər əvvəl müxalifətə müraciətdə "biz tank üstündə hakimiyyətə gəlmişik, bacarırsınız, siz da gəlin", –** deyən spikerin kreslodakı inkişafı göz qabağındadır.

Sonrakı günlərdə, iyunun 8-9-da Milli Məclisdə keçirilən iclaslar ölkənin hansı vəziyyətə salındığını, AXC-Müsavat hakimiyyətinin mahiyyətini bütün qabarıqlığı ilə göstərdi. Qarşılıqlı ittihamlar, söyüş, hədə-qorxu, şantaj – bu iqtidarın hansı vasitələrdən istifadə edərək hakimiyyətə gəldiyini ortaya qoydu.

Etibar Məmmədov: "… **İsa bəy, sizin əliniz qana batıb! Ona görə da bu qanı boynunuzdan at-maq istəyirsiniz".**

İsa Qəmbər: **"Etibar bəy, 709-cu briqadanın müdafiə nazirinə tabe olmamasında sizin də əliniz var. Qardaş qırğınına səbəb olan şəxslərdən görünür biri da sizsiniz və qardaş qırğınını vətəndaş müharibəsinə çevirmək cəhdi də sizin çıxışlarınızdan açıq-aydın görünür".**

Etibar Məmmədov: **"İsa bəy, həyasızcasına yenə bu işi davam etdirirsiniz, bəsdir də! Nə qədər olar bu milləti dolamaq!".**

Bu deyilənlər parlamentdə nələrin baş verdiyini açıq-aydın göstərir. İ. Qəmbərovun baş verənlərin ictimaiyyətin diqqətinə çatdırılmasını əngəlləmək istəməsi isə AXC-Müsavat iqtidarının qan üstündə qurulmuş hakimiyyətini qoruyub-saxlamaq cəhdi idi. Spiker nəinki MM-in sessiyasını televiziya vasitəsilə translyasiya edilməsini əngəlləyirdi, hətta Gəncədən qayıtmış ağsaqqallardan ibarət komissiyanın MM-ə gəlib açıqlama verməsinin qarşısını alırdı.

A. Hacıyev belə bəhanə gətirirdi ki, guya **"Komissiya üzvləri bildiriblər ki, həmin adamlar (MM qarşısında piket keçirənlər – Q.Ə.) oradan getsinlər, sonra biz gəlib iştirak edək".**

Gəncə kimi qarşıdurma olan yerə getməkdən qorxmayan şəxslər indi MM-in qarşısındakı piketdən qorxurdular? Məsələyə aydınlıq gətirən komissiya üzvü İmam Mustafayev deyirdi: **"Prezident 5 saat bizi öz otağında saxladı. Beş saatda bizim xəbərimiz yox idi ki, MM bizi gözləyir. Burada da xəbər yayıblar ki, guya biz qorxuruq bura gəlməyə".**

Parlamentin sessiyasındakı maraqlı məqamlar bununla yekunlaşmır. Artıq iyunun 8-də MM bəzi qərarları qəbul etməyə müvəffəq olur. Lakin iyunun 9-da AXC İK-nin sədri F. Quliyev söz alaraq çox maraqlı bəyanat verir. Gəncədəki qeyri-qanuni silahlı dəstələrin tərksilah olunmasını və S. Hüseynovun saxladığı girovların buraxılmasını tələb kimi parlamentin qarşısına qoyan F. Quliyev deputatların girov götürüldüyünü və onların binadan çıxmasına imkan verilməyəcəyini bəyan edir. AXC-Müsavat hakimiyyəti sınaqdan keçmiş metoda əl ataraq 15 may 1992-ci il hadisələrini təkrarlamaq istəyirdi. Ancaq zaman o zaman deyildi.

AXC-Müsavat iqtidarının əsl mahiyyəti göz qabağında idi. İş o yerə çatmışdı ki, hətta Ə. Elçibəyin Gəncəyə göndərdiyi dövlət komissiyasının üzvləri Fərəməz Maqsudov və Sabir Rüstəmxanlı **da xüsusi azğınlıqla təhqir olun**muşdular, gecəyarı zalı tərk edərkən fiziki təzyiqə məruz qalaraq döyülmüşdülər.

Hakimiyyətə gəldiyi ilk dövrlərdə ölkədəki digər siyasi qüvvələrə qarşı qərəzli mövqe tutan AXC-Müsavat hakimiyyəti vəziyyətin dözülməz dərəcəyə gəlib çıxdığını görərək müxalifətə üz tutmağa, nüfuzlu şəxslərdən kömək ummağa başladı.

İqtidar əsasən iki qüvvəyə – Naxçıvan Ali Sovetinin sədri Heydər Əliyevə və AMİP sədri Etibar Məmmədova müraciət edir. Lakin Heydər Əliyevlə müqayisədə E. Məmmədovun kifayət qədər gücsüz olduğunu anlayan hakimiyyət nümayəndələri yalnız -Heydər Əliyevin ölkəni bu vəziyyətdən çıxaracağını görürdülər. Ancaq bu yerdə də Xalq Cəbhəsi hakimiyyəti maraqlarına uyğun siyasət yürütməyə başladı.

Belə ki, onlar kreslolarını qoruyub-saxlamaq üçün ümid bəslədiyi şəxslərə vəzifə təklif edir, bununla da hakimiyyətlərinin davamlılığını təmin etmək istəyirdilər. Qısası, AXC-Müsavat hakimiyyəti ölkənin nüfuzlu şəxslərini avantürist siyasətlərinin iştirakçısına çevirərək onlardan vasitə kimi istifadə etmək məqsədi güdürdü. Siyasəti qismən də olsa, anlayan insanlar bunu görməyə bilməzdilər. Heydər Əliyev kimi dahi siyasətçi isə AXC-Müsavat cütlüyünün bu cür "yumşalmasının" arxasında nəyin dayandığını yaxşı başa düşürdü. O bilirdi ki, Ə. Elçibəy, İ. Qəmbərov hakimiyyətinin əsas məqsədi heç də ölkəni çətin vəziyyətdən çıxarmağa yönəlməyib. Burada əsas məqsəd hakimiyyət kürsüsünü qoruyub saxlamaqdır. Bununla yanaşı, Heydər Əliyev kimi şəxsiyyət Azərbaycanın fəlakətinə biganə qala bilməzdi. Məhz bu amil onun iyunun 9-da qəti qərar qəbul edərək Bakıya gəlməsini şərtləndirir. Heydər Əliyevin əsas məqsədi Azərbaycanı fəlakətdən qurtarmaq idi.

Beləliklə, Azərbaycanın qurtuluşuna səbəb olan ilk addım atıldı: XİLASKAR TARİXİ MİSSİYASINI YERİNƏ YETİRMƏK ÜÇÜN BAKIYA GƏLDİ. İyunun 9-u saat 15:00-da Heydər Əliyevi Bakıya gətirən təyyarə Binə Hava Limanında yerə endi.

Aydın məsələdir ki, Heydər Əliyev Bakıya gəldiyi ilk saatlarda yaranmış vəziyyətlə fəal şəkildə maraqlanaraq, müxtəlif səviyyəli görüşlər keçirərək məsələni araşdırdı. Bunun üçün hətta heç nədən çəkinməyib Gəncəyə səfər etdi və S. Hüseynovla görüşdü. Əvvəlcə prezident Ə. Elçibəylə ilk məsləhətləşmələr apardıqdan sonra Heydər Əliyev Azərbaycan Elmlər Akademiyası rəyasət heyətinin binasında elm xadimləri, tanınmış ziyalılarla görüşdü. Həmin görüşdə Heydər Əliyev bildirdi ki, o, Bakıya respublika prezidenti Ə. Elçibəyin təkidli xahişi ilə gəlib və yaranmış vəziyyətdən ağılla çıxmağın yollarını arayır. O, ölkənin ağır vəziyyətində bütün imkanlarından istifadə edəcəyinə söz verdi. Heydər Əliyev AEA-da çıxışı zamanı iyunun 9-da bəzi deputatların döyülməsinə etirazını bildirdiyini və belə hadisələrin nə Milli Məclisə, nə də hakimiyyətdə olan qüvvələrə hörmət gətirməyəcəyini qeyd etdi: **"Həyatda, cəmiyyətdə heç bir xidməti olmayan adam böyük iddialarla gəlib Azərbaycanın müstəqilliyini yalnız onun qoruduğunu, Azərbaycanın müstəqilliyinin sahibinin yalnız onun olduğunu, Azərbaycanın müstəqilliyinin monopoliyasının yalnız onun əlində olduğunu deyərək əlimə hörmətsizlik edirsə, bu dəhşətdir".**

Heydər Əliyev qətiyyətlə bildirdi ki, "mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişaf etməsinə sərf edəcəyəm. Buna heç kəsin şübhəsi olmasın. İkincisi, mən heç vəchlə bir daha Azərbaycanın başqa bir dövlətin tərkibinə daxil olmasına öz imkanlarım daxilində yol verməyəcəyəm və Sovetlər İttifaqının bir daha bərpa oluna bilməz". Bu sözlərlə Heydər Əliyev vaxtilə Sovetlər İttifaqının başında duran şəxslərdən biri kimi imperiyanın bərpasına çalışan qüvvələrə qəti sözünü dedi və Bakıya qayıdışının məqsəd və məramını açıqlamış oldu.

İyunun 13-də MM-in növbədənkənar iclası keçirildi. Bir gün əvvəl isə televiziya vasitəsilə elan olunmuşdu ki, parlamentdə İ. Qəmbərin istefası məsələsi müzakirə olunacaq. Onun istefası bir zərurət kimi ortaya çıxmışdı. AXC-Müsavat iqtidarının ikinci adamının istefasını səriştəsiz hakimiyyətin yaratdığı anarxiyadan bezən Azərbaycan xalqı, Azərbaycanın gələcək perspektivi tələb edirdi.

**İyunun 13-də keçirilən iclasın əvvəlində isə vaxt itirilmədən və geniş müzakirə açılmadan istefa qəbul edildi. Ali Sovetin yeni sədrinin seçilməsi məsələsi gündəliyə qoyuldu. Bu vəzifəyə kimin seçiləcəyi da aydin idi – XALQ HEYDƏR ƏLİYEVİ GÖZLƏYİRDİ.**

Heydər Əliyev isə bu məsələnin hələ müzakirəyə çıxarılmamasını xahiş edərək Gəncədəki vəziyyətlə tanış olmadığını və məsələni birbaşa yerindəcə aydınlaşdırmaq üçün ora getmək istədiyini bildirdi. Heydər Əliyevin bu addımı mövcud iqtidarın törətdiyi cinayətlər nəticəsində yaranmış vəziyyəti aradan qaldırmaq üçün mühüm əhəmiyyət kəsb edirdi. Çünki vəziyyətlə yerindəcə tanış olmadan, S. Hüseynovun məqsədini aydınlaşdırmadan hər hansısa real addımlar atmaq olduqca çətin idi. Beləliklə, iyunun 13-də axşam saat 6-da Heydər Əliyev, o cümlədən müxtəlif xarici və yerli KİV nümayəndələri Gəncəyə yola düşdülər.

Səfər gözlənildiyi kimi olduqca çətin şəraitdə həyata keçirildi. Qrup Gəncəyə gecə saat 12 radələrində çatır. Ancaq gözlənildiyinin əksinə olaraq şəhərdə tam sakitliyin olduğu üzə çıxır. Qadağan saatını həyata keçirən əsgərlər onların hərəkətinə heç bir maneə törətmirlər.

İyunun 14-ü səhər saat 8:00-da Heydər Əliyevlə S. Hüseynov arasında gecədən başlamış danışıqlar davam etdirilir.

Heydər Əliyev həlak olanlarla əlaqədar gəncəlilərə başsağlığı verir və bildirir ki, **"İndiyədək olduğu kimi, bundan sonra da Gəncədə baş vermiş hadisələrin yalnız ədalət prinsipi ilə araşdırılması, günahkarların müəyyənləşdirilməsi, qardaş qanı tökülməsində iştirak edənlərin, onun təşkilatçılarının qanun qarşısında cavab verməsi üçün bütün tədbirlər görüləcək".**

Heydər Əliyevin Gəncəyə səfəri zamanı onu heç bir təhlükənin gözləməməsi barədə rəy yaratmaq üçün qəzetlərdə məqsədli məqalələr verilirdi. Əsl həqiqət isə tamamilə başqa cür idi. Heydər Əliyevin Gəncəyə səfəri S. Hüseynovu və yaxın ətrafını narahat etməyə bilməzdi. Onlar artıq belə zənn edirdilər ki, hakimiyyətin tam ələ keçməsinə bir şey qalmayıb. Bu bir neçə günün işidir. Belə məqamda Heydər Əliyev faktorunun ortaya çıxması əlbəttə ki, onların planlarını alt-üst edirdi. Onda ortaya belə sual çıxır: nəyə görə S. Hüseynov Heydər Əliyevi aradan götürmədi? Birincisi, S. Hüseynov yaxşı başa düşürdü ki, bu cür hədsiz cinayət törədərsə, xalq onu heç vaxt bağışlamaz və onu parça-parça edər. Digər tərəfdən, Gəncəyə AXC-Müsavat iqtidarının hərbi hissələri yox, bir siyasətçi və 40 jurnalist gəlmişdi. Nə adla S. Hüseynov qanlı aksiya törədə bilərdi? O başa düşürdü ki, xalq Heydər Əliyevi dəstəkləyir və birmənalı şəkildə onun arxasında durur.

Bununla yanaşı, sonradan məlum olur ki, həqiqətən də S. Hüseynovun Heydər Əliyevə qəsd etmək planları var imiş. Lakin xalqın qəzəbinə tuş gələcəyini bilən polkovnik bu addımı atmaqdan çəkinir.

**İki günlük danışıqlardan sonra Heydər Əliyev Bakıya qayıdır və dövlətçiliyin çox böyük təhlükədə olduğunu, vəziyyətin həddindən artıq qorxulu həddə çatdığını bay an edir. AXC-Müsavat iqtidarının buraxdığı kobud səhvlər vəziyyəti son dərəcə ağırlaşdırmış, S. Hüseynovun dəstələrinin paytaxta qədər gəlib çıxmasına şərait yaratmışdı. Belə məqamda Heydər Əliyevin hakimiyyət nümayəndələrinin iqtidarın müdafiə olunması xahişini yerinə yetirməsi qeyri-mümkün idi. Çünki həmin dövrdə xalqda iqtidara qarşı o qədər böyük nifrət yaranmışdı ki, hətta Heydər Əliyev kimi əhalinin böyük əksəriyyətinin pərəstiş etdiyi lider da onu dəstəkləsəydi, bu addım onun nüfuzuna təsir göstərər və qiyamçıların hakimiyyəti ələ almaq şansını bir az da artıracaqdı. Təsadüfi deyil ki, daxili işlər naziri əvəzi Rövşən Cavadov həmin günlərdə MM-də çıxış edərkən əhalinin 90 faizinin S. Hüseynovu dəstəklədiyini bay an etmişdi.**

Gəncəyə səfər ərəfəsində iqtidar nümayəndələri ilə aparılan danışıqlarda hakimiyyət tərəfindən irəli sürülən təkliflərin mahiyyəti bundan ibarət idi ki, Heydər Əliyev qiyama mənfi münasibətini heç olmasa ümumi şəkildə bildirməklə, Ə. Elçibəylə əməkdaşlığa getdiyini bəyan etməli və Ə. Elçibəylə birlikdə xalqa, öz tərəfdarlarına müraciət edərək dövlətçiliyi müdafiə etməyə çağırmalı idi. Göründüyü kimi, hətta ən ağır məqamda AXC-Müsavat iqtidarı reallığı düzgün qiymətləndirə bilmir, kürsü maraqlarını dövlətçilik maraqlarından üstün tutduğunu gizlətmirdi.

İyunun 15-də Heydər Əliyevin Gəncəyə səfəri ilə əlaqədar təxirə salınmış MM-in fövqəladə iclası davam etdirildi. Yuxarıda qeyd etdik ki, iclasın gündəliyində yalnız bir məsələ – istefa vermiş İsa Qəmbərovun yerinə Ali Sovetin sədrinin seçilməsi qoyulmuşdu. Lakin elə ilk andan Ali Sovet sədrinin müavini Tamerlan Qarayev bu məsələnin müzakirəyə çıxarılmasını əngəlləməyə başladı. Onun təklifinə görə, ilk öncə respublikada yaranmış vəziyyətlə əlaqədar güc nazirlərinin məlumatlarının dinlənilməsi, son günlər yaranmış ictimai-siyasi vəziyyət və ondan çıxış yolları, Heydər Əliyevin Gəncə səfəri və onun S. Hüseynovla apardığı danışıqlar, eləcə də digər məsələlər müzakirə olunmalı idi. Hamıya aydın idi ki, Tamerlan Qarayev Heydər Əliyevin Ali Sovetin sədri seçilməsinə mane olmaq istəyirdi. Heydər Əliyevin bu məsələyə münasibəti kəskin oldu. O bildirdi ki, Gəncəyə gedib topladığı məlumatları söyləyəcəyini kimsəyə söz verməyib. İyunun 13-dəki iclas isə onun xahişi ilə təxirə salınıb. Yəni əgər bu xahiş olmasaydı, gündəlikdə duran əsas məsələ elə iyunun 13-də də reallaşacaqdı. Buna görə də Heydər Əliyev bildirdi ki, **"Əgər siz Ali Sovetin sədri məsələsini həll etmək istəyirsinizsə, mən bu işdə iştirak edirəm, əgər həll etmək istəmirsinizsə, başqa məsələləri müzakirə edirsinizsə, mən bu işdə iştirak etmirəm".**

**Arqumentlərin tutarlılığına baxmayaraq. T. Qarayev bildirirdi ki, İ. Qəmbərovun istefası ölkədəki ictimai-siyasi vəziyyətlə bağlı olan məsələdir. Buna görə də əvvəlcə bu məsələlər müzakirə olunmalı sonra isə sədrin seçilməsi məsələsi gündəliyə qovulmalıdır. Bunun üçün o bildirdi ki, Heydər Əliyev S. Hüseynovla apardığı danışıqlar barədə məlumat verməlidir. Heydər Əliyev isə haqlı olaraq bildirdi ki, gərginlik yarandığı dövrdən kimsə ora getməyib və bütün bu dövr ərzində burada oturub məsələni müzakirə ediblər. Axı Ali Sovetdə oturub hansı çıxış yollarını müzakirə etmək olardı? Heydər Əliyev bu yolların çox olduğunu bildirərək müzakirə etməyin yox, tədbir görməyin vaxtı olduğunu bildirdi. Tədbirləri isə səsvermə yolu ilə görmək olmaz. Bunu yalnız səlahiyyətli adamlar görə bilər. Yəni əgər AXC-Müsavat iqtidarı Heydər Əliyevi köməyə çağırıbsa, lakin bunun üçün ona heç bir səlahiyyət vermirsə, hansı köməkdən söhbət gedə bilər və Heydər Əliyev səlahiyyəti olmadığı halda onlara necə kömək edə bilər? Arqumentlərin əsaslı olduğunu hamı başa düşürdü. Heydər Əliyev son dərəcə hiddətlənmişdi: "Vaxt qalmayıb, siz Ali Sovetin rəhbərisiniz. Ayın 4-də hadisələr olub. Niyə getməmisiniz ora? Kim sizin qabağınızı alıbdır?.. Siz indi mənə deyirsiniz ki, siz təklif etdiniz ki, mənimlə bir başqa qrup da getsin. Hər bir qrup gedə bilərdi, o cümlədən siz də, Ali Sovetin sədri də və başqa adamlar da gedə bilərdi. Kim sizin qabağımızı almışdı?.. Gəncə hadisələri… Ondan çıxış yolları burada, bu gün müzakirə oluna bilməz. Birinci ona görə ki, deputat-istintaq komissiyası işləyir, bu işi o aparmalıdır. İkincisi, bu məsələ geniş müzakirə oluna bilməz. Bu məsələdən indi çıxış yollarını tapmaq lazımdır, onu da müəyyən bir qrup səlahiyyətli adam apara bilər. Ona görə də siz məni bu məsələlərə çəkməyin. Siz istəyirsiniz, neçə dənə təklifə səs verə bilərsiniz. Ancaq bilin ki, mən bu işlərə qarışmayacağam ".**

**Nəhayət, T. Qarayevin oyunbazlığından təngə gələn Əbülfəz Elçibəy də dilə gəlib həqiqətən də Heydər Əliyevin onun xahişi ilə Bakıya gəldiyini və köməklik göstərmək üçün ona səlahiyyətlərin verilməsinin zəruri olduğunu bildirdi. Ə. Elçibəy yaxşı başa düşürdü ki, Heydər Əliyevin yüksək səviyyədə bu məsələyə müdaxiləsi olmasa, Azərbaycanda vətəndaş qırğınının qarşısını almaq mümkün olmayacaq, Heydər Əliyevə səlahiyyət vermədən ondan nə isə istəmək də mümkün deyildi. Axı heç bir səlahiyyəti olmayan Heydər Əliyev nə edə bilərdi? İndiyə kimi ancaq populizmlə məşğul olaraq ölkəni**

**bərbad hala salan şəxsin əvəzinə Heydər Əliyev kimi səriştəli siyasətçinin Ali Sovetin sədri seçilməsi, bütün imkanlardan istifadə edərək bu məsələnin həllinə nail olması günün tələbi deyildimi?**

**T. Qarayev son addımı atdı – o, bilə-bilə ki, yeganə namizəd Heydər Əliyevdir, alternativ variantları da irəli sürməyə imkan yaratdı. Ancaq kim Heydər Əliyevin alternativi ola bilərdi? Beləliklə, Heydər Əliyevin namizədliyi irəli sürüldü və böyük əksəriyyətin səs çoxluğu ilə (lehinə 34 nəfər, əleyhinə 3 nəfər, bitərəf 1 nəfər, səs vermədi 1 nəfər, iştirak edirdi 39 nəfər) Azərbaycan parlamentinin sədri seçildi.**

**Uğursuzluqdan məyus olan T. Qarayev iclası davam etdirə bilməyib zaldan çıxmağa məcbur oldu. Onu əvəz edən Afiyəddin Cəlilov sözü Heydər Əliyevə verdi:**

**- Mənə bu gün böyük etimad göstərdiyinə görə, MM-in üzvlərinə minnətdarlığımı bildirirəm. Sizi əmin edirəm ki, ağır bir yükü aparmağa çalışacağam və bu vəzifənin ləyaqətli yerinə yetirilməsinə səy edəcəyəm. Bildirmək istəyirəm ki, Azərbaycanın bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram. Və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm… Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm… Ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, Azərbaycan Respublikası, bundan sonra onun başına nə gəlirsə gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək”.**

**Daha sonra yaranmış vəziyyətin mürəkkəbliyini bir daha xatırladaraq Heydər Əliyev bildirdi: “Güman edirəm ki, Ali Sovetlə Azərbaycan prezidenti Ə. Elçibəylə birlikdə hamımız bu vəziyyətdən çıxa biləcəyik. Sizin hamınızı bu yolda birliyə dəvət edirəm”.**

**“Azad Azərbaycan”.-**2009.-14 iyun.-N. 81.-S.2.

## TARİX YARADAN ŞƏXSİYYƏT

**Mixail Zabelin,**
Milli Məclisin deputatı,
YAP İdarə Heyətinin üzvü

Ulu öndərin həyat və fəaliyyətinə nəzər salarkən əmin oluruq ki, o, ictimai-siyasi quruluşdan asılı olmayaraq bütün dövrlərdə öz doğma xalqına sədaqətlə xidmət etmişdir. 1993-cü ildə Azərbaycan xalqının təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra demişdir: “Mən ömrümün qalan hissəsini də Azərbaycan xalqına bəxş edirəm!” Doğrudan da, 1993-2003-cü illərdə Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində, ölkəmizin hərtərəfli inkişafında, Azərbaycanın o ağır, çətin vəziyyətdən xilas edilməsində Heydər Əliyevin müstəsna rolu vardır.

Heydər Əliyev Azərbaycan tarixini də, ədəbiyyatını da çox gözəl bilirdi. Çox yaxşı ədəbiyyatşünas, yazıçı ola bilərdi. Bildiyiniz kimi, rəssamlıq sənətinə də böyük həvəsi var idi və gənc yaşlarından rəssamlıqla məşğul olurdu. Çəkdiyi rəsmlər göstərir ki, bu insan doğrudan da, böyük istedad sahibi idi. Uşaqlıq illərində gənc yaşlarında Naxçıvanda məktəbdə oxuyarkən teatrda tamaşalarda çıxış edirdi və özü də ancaq baş rollarda və qəhrəmanlar obrazında. Onun həm xarici görünüşü, həm də daxili aləmi bunu diktə edirdi, səhnədə yalnız müsbət personajları oynayırdı. Bütün bunları ona görə deyirəm ki, bu istedadlı insan istənilən sahədə böyük zirvələrə çata bilərdi. Əgər siyasətlə yox, başqa sahə ilə məşğul olsaydı, o sahədə də ən yüksək zirvələri fəth edəcəkdi.

Azərbaycanda 1993-cü ildə böhran yarananda, bundan əvvəl isə Heydər Əliyevi Naxçıvanda hakimiyyətdən devirmək istəyənlər – ovaxtkı Xalq Cəbhəsi-Müsavat hakimiyyətinin rəhbərləri məcbur olub onu Bakıya dəvət etdilər. Ona görə yox ki, Azərbaycanın xilasının yalnız Heydər Əliyevlə bağlı olduğunu anladılar. Ona görə ki, onların özlərinin həyatı təhlükə qarşısında idi. Çünki onlara qarşı edilən hərəkətlər onları təşvişə salmışdı, bəziləri qaçıb gizlənmişdi, bəziləri isə öz vəzifələrini dondurmuşdular.

1993-cü ildə Azərbaycanda yaşanan böhran, əslində, gənc Azərbaycan Respublikasının müstəqilliyinə son qoya bilərdi. Biz bu acı tarixi artıq bir dəfə 1920-ci ildə yaşamışdıq. O vaxt da Azərbaycan müstəqil respublika kimi cəmi iki il yaşaya bildi.

1993-cü ildə eyni vəziyyət təkrarlana bilərdi. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində bunun qarşısı alındı, böhrana son qoyuldu, bütün qanunsuz silahlı birləşmələr tərksilah olundu və ölkə inkişaf etməyə başladı. 1993-2003-cü illər bizim hamımızın yaxşı xatirindədir: sabitlik və inkişaf illəri, Azərbaycanın dirçəliş illəri, Azərbaycanın xarici mövqelərinin möhkəmlənməsi illəri, neft müqavilələrinin imzalanması illəri. Bu gün Azərbaycanın uğurlu inkişafında o vaxt Heydər Əliyev tərəfindən atılmış addımlar müstəsna rol oynayır. Bu gün bizim dövlət büdcəmiz, icmal büdcə 12 milyard 177 mln. manata yaxındır.

Heydər Əliyev qalib idi. O, bütün döyüşlərdən qalib kimi çıxıb, heç kim ona qalib gələ bilməmişdir. 1987-ci, 1990-cı və 1991-ci illərdəki müvəqqəti məğlubiyyət uğursuzluq deyildi. Əslində, o, yeni güclə, yeni enerji ilə siyasi mübarizəyə qoşuldu, yenidən qələbə qazandı və tarixdə qalib kimi qaldı. Heç kim və heç nə ona qalib gələ bilmədi. Nə xarici düşmənlər, nə də Azərbaycanda özünü ona rəqib qismində təqdim etməyə çalışan uğursuz siyasətçilər. Tarixi obyektiv həqiqət, milli faktor – qan-gen yaddaşı və siyasi amil kimi ilk dəfə konseptual şəkildə məhz əsrimizin ikinci yarısından, xüsusən də, hələ sovet müstəmləkəsi əsarətində yaşayan respublikamızın ictimai-siyasi, milli-mədəni həyatında Heydər Əlirza oğlu fenomeni fakta çevriləndən sonra başlayıbdır.

Təfsilata varmadan deyə bilərik ki, siyasi mübarizəsində də, diplomatiyasında da, idarəetmə təcrübəsində də geniş mənada tarixə – yaddaşa, mentalitetə, tarixi keçmişə, mənəviyyat tarixinə Heydər Əlirza oğlu qədər müdrikcəsinə istinad edən ikinci şəxsiyyəti nümunə göstərmək çətindir. Tarix onun üçün heç vaxt yaşanmış keçmiş qürrə, fəxr mənbəyi olmayıb, tarix bütün hallarda onun üçün gələcəyin məktəbi olubdur. Tarixi kifayət qədər peşəkarcasına bilməsi sayəsində Heydər Əlirza oğlu tarixi yaşadan şəxsiyyətlər arasından çıxaraq, tarixi yaradan şəxsiyyətlər sırasına daxil olub.

Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da uzun müddət milli siyasət müəyyənləşdirilərək həyata keçirilməyib. Milli siyasət dedikdə, çox vaxt etnik tərkibli rəngarəng və zəngin olan ölkələrdən biri kimi, Azərbaycanda millətlərarası münasibətlərin məqsədyönlü tənzimlənməsi başa düşülür. Halbuki milli siyasət millətlərarası münasibətlərin tənzimlənməsi siyasəti anlayışından çox-çox genişdir. Əslində, milli siyasət daha geniş anlayış olan dövlət siyasətini də özündə ehtiva edir. Milli siyasətdə dövlət maraqları da xüsusi nəzərə alınmaqla milli maraqlar ön plana çəkilir.

Azərbaycanda tarixən milli maraqlara daha çox diqqət yetirilib. Epoxal mərhələni əhatə edən müstəqil demokratik dövlətçilik ənənəsi olmayan Azərbaycanda dövlət maraqlarını da milli maraqlar əvəz edib. Milli maraqlar anlayışının tarixi kontekstdə şərti işlədildiyi aydındır. İnsan toplumlarının inkişaf prosesinin klassik təsnifatını (etnos, xalq, millət) əsas götürsək, deyə bilərik ki, hər bir mərhələnin özünəməxsus kompleks maraqları olub.

Qafqazda siyasi sıçrayışlara deyil, sabit hakimiyyətə həmişə böyük hörmət olmuşdur. Məğrur xalqları idarə etmək nə qədər çətin olsa da, ciddi dəyişikliklər dövründə hakimiyyətin başında durmaq ikiqat məsuliyyət tələb edir. Bu mənada yeni tarixdə öz xalqını parçalanmaqdan, əsarətdən, zülmdən və qardaş qırğınından qoruya bilən qəhrəmanlar böyük maraq doğurur.

Qafqaz müxtəlif etnosların, dillərin, adətlərin toplaşdığı regiondur. Bu torpaqda çoxsaylı dillərin mövcudluğu barədə müxtəlif əsatirlər mövcuddur. Onların içərisində Qafqaz əfsanəsi xüsusilə maraqlıdır. Əfsanəyə görə, Tanrı xalqlara dilləri paylayarkən birdən özündə yorğunluq hiss edir və Qafqaz üzərinə bütün qalan dilləri səpir. Beləcə çox da böyük olmayan bir regionda çoxsaylı dil qrupları meydana gəlir. Bəlkə də ulu Tanrı bununla Qafqazı sınağa çəkdi. Minilliklər ərzində Qafqazda yaşayan xalqlar gah bir-birilə dostluq edir, gah vuruşur, gah da barışırdı. Nəhayət, yenidən onların üzərində göylər parçalandı və yalnız dağ çayları deyil, insan qanları və göz yaşlarından ibarət çaylar axmağa başladı.

Hər şey üç slavyan qardaşın – rus Yeltsin, ukraynalı Kravçuk, belorus Şuşkeviç və zəif iradəli Qorbaçovun qələmindən çıxmış imza ilə başladı. Tanrı tərəfindən Qafqaza verilmiş seçim hüququ işğalçılıq hüququna çevrildi.

Milli təmizləmə və terror aktları başlandı. Kimdəsə qədim tarixini yada salmaq və qədimliyini, böyüklüyünü sübut etmək istəyi baş qaldırdı və bu səs-küy altında ayrılmaq, öz müstəqilliyini müəyyənləşdirmək arzuları oyandı. Əgər dünyadakı mövcud altı mindən artıq böyük və kiçik xalqlar öz müstəqilliklərini qurmaq yolunu seçsəydilər, o zaman yəqin ki, dünya məhv olardı. Bəs ermənilərə bu nə üçün lazım idi? Axı, ermənilər artıq bir dəfə öz müqəddəratlarını müəyyənləşdirərək erməni dövlətini qurmuşdular. Dağlıq Qarabağda yaşayan ermənilərə ikinci bir erməni dövləti yaratmaq nəyə lazımdır? Əslində, bu necə mümkün ola bilər? Axı, orada azərbaycanlılar, ruslar və yəhudilər də yaşayır. Məgər onda onlar da öz müqəddəratlarını müəyyənləşdirməlidirlər?

Heydər Əliyev öz yeni dövlətini on il idarə etdi. Minilliklər tarixi olan uca Qafqaz zirvəsindən baxarkən bu on il kiçik bir andır. Lakin bu an böyük şanlı yolun ilk addımıdır. Azərbaycan və bütünlükdə Qafqaz yüzilliklərlə yaşı olan əzəmətli bir çinara bənzər məhz belə bir liderə ehtiyac duyurdu və o, taleyin qismətilə hakimiyyətə gəldi. Hündür-boylu, qamətli, cazibədar, möhkəm xarakterə malik, mədəni azərbaycanlı, sarsılmaz iradəyə və müdrikliyə malik bir insan. O, Qafqaz üçün son dərəcə ağır bir zamanda hakimiyyətə gələrək elə işlər görə bildi ki, bunu heç kim görə bilməzdi. O, müharibəni dayandırdı, insan qanı axıdılmasının qarşısnı aldı, insanlara ləyaqət hissini və milli hörməti qaytardı.

O, taleyin və zamanın hökmü ilə tarixin yeni mərhələsində bütün çətinliklərə səbr və təmkinlə qalib gələ biləcək bir insan, bir lider idi. XX əsrdə buna heç kim nail ola bilməmişdir.

Heydər Əliyev dünyanın bütün prezidentlərindən fərqlənirdi. Qoca Qafqazın oğlu olaraq o, Qafqaz xalqlarının həyatına böyük ustalıqla təsir edə bildi. Bütün dünyanı özü ilə hesablaşmağa vadar etdi. Təbiət onu böyük müdriklik və unikal hafizə ilə mükafatlandırmışdı. Heydər Əliyevi tez-tez bu və ya digər dünya səviyyəli siyasətçi ilə müqayisə edirdilər. Lakin o, heç kimə bənzəmirdi. Heydər Əliyev elə Heydər Əliyev idi.

Bir dəfə Sov. İKP MK-nın Siyasi Bürosuna Türkiyə rəhbərliyi adından bolqar hakimiyyət orqanlarının türkləri öz ad və familiyalarını zorla dəyişməklə bağlı bir etiraz məktubu daxil olmuşdu. Siyasi Büroda məktubu oxuyan Qorbaçov deyir: Bu, “Bolqarıstanın daxili işidir və biz müstəqil dövlətin daxili işlərinə qarışa bilmərik” və gündəlikdə duran digər məsələlərin müzakirəsinə keçmək istəyir. Birdən Heydər Əliyev buna qarşı çıxır və deyir: “Macarıstan və Çexoslovakiyadakı hadisələri biz nədənsə onların daxili işləri hesab etmədik. Söhbət bolqar türklərinə qarşı zorakılıqdan getdikdə biz nədənsə bunu “onların daxili işi” hesab etdik. Belə bir ikili standart bizə yaraşarmı?”

Heydər Əliyev ölkə üçün son dərəcə ağır bir zamanda hakimiyyətə gələrək Azərbaycana rəhbərlik edirdi. Onun siyasi təcrübəsi və müdrikliyi gənc ölkə üçün gənc ailəyə nəsildəki böyüklərin müdafiəsi və təcrübəsinin zəruriliyi qədər vacibdir.

Xalq Cəbhəsi hakimiyyətdə olarkən yaşadığımız həyəcanlı dövrlər unudulmayıb. Ölkədən böyük axın var idi. Azərbaycanlılar, ruslar, ukraynalılar, yəhudilər, ləzgilər, avarlar köçürdülər. Azərbaycanda stabillik pozulmuş, qeyri-müəyyənlik hökm sürürdü.

Cəmi bir neçə ildən sonra hər şey dəyişdi… 1995-ci il. 500-dən artıq ailə Azərbaycana qayıtdı. Keçmiş hərbçi V. Şatskonun məktubundan bir parça: “Hörmətli Heydər Əliyev, biz ailəliklə ömrümüzün ən yaxşı

illərini Bakıda yaşamışıq, Azərbaycanı və onun mehriban xalqını sevmişik. Ona görə bu ölkəni tərk etmişdik ki, sabaha inam itmişdi, qorxu və ümidsizlik hakim idi. Biz qayıtmaq istəyirik, ona görə ki, indi Siz Prezidentsiniz. Siz bizim evin sahibisiniz. Və biz Sizinlə birlikdə yeni, çoxmillətli Azərbaycanı qurmaqla xoşbəxt olacağıq…"

Fikrimcə, bu məktubda Azərbaycanın ozamankı taleyi öz əksini tapıb. Geri dönən ailələr – stabillik və inamın simvolu, Prezidentə və onun siyasətinə inamın təzahürü idi.

Azərbaycanın taleyinin həll edildiyi bir zamanda Heydər Əliyev milli birlik ideyasını irəli sürdü. O, hesab edirdi ki, yalnız bu yolla ölkəni böhrandan çıxarmaq mümkündür. Onun səmimiliyinə milyonlarla vətəndaş əmin idi. Onlar Heydər Əliyevi hələ Sovetlər dövründən dahi beynəlmiləlçi kimi tanıyırdılar.

Həmin dövrdə milli problemlər də meydana gəlirdi və millətlərarası sülhü pozmağa çalışan qüvvələr də var idi. Lakin Heydər Əliyev gərginliyi azaltmaq üçün vasitələr tapırdı. Respublikaların rəhbərləri onun müdrik məsləhətlərinə qulaq asar və təşəbbüslərinə qoşulardılar. Özünə inamın gücü, qabiliyyəti, hər bir milliyyətə mənsub insanlara hörmət və məhəbbəti ilə ən mürəkkəb problemləri həll edə bilirdi.

Ermənistan-Azərbaycan münasibətləri millətlərarası sülhün pozulmasına təhlükə olaraq qalırdı. Öz çirkin məqsədləri üçün Qarabağ probleminin ortaya atılması isə böyük partlayış üçün nüvə idi və bu partlayış bir neçə dəfə faciələrə gətirib çıxarmışdı.

1969-cu ilin iyulunda respublika rəhbərliyinə gələn Heydər Əliyev qısa müddətdə mövcud problemi tamamilə başqa bir səviyyəyə – Azərbaycan-Ermənistan arası problemlər səviyyəsinə qaldırdı.

Dağlıq Qarabağın iqtisadiyatı yüksək sürətlə inkişaf etməyə başladı. Böyük sənaye müəssisələri yaradıldı, üç dildə – erməni, Azərbaycan və rus dillərində tədris olunmaqla pedaqoji institut açıldı, sosial-mədəni sferaya lazımi diqqət yetirildi.

Mədəni əlaqələr fəal inkişaf edirdi. İki qonşu respublikanın elm və mədəniyyət nümayəndələrinin görüşləri, festivalları keçirildi. Məhz bu illərdə Azərbaycan incəsənət xadimlərinin Ermənistanın idman meydançalarında böyük konsertləri oldu. Heydər Əliyevin Ermənistanın zavod və fabriklərində fəhlələrlə, tarlalarda kəndlilərlə, alimlərlə görüşləri keçirildi. Ona qulaq asır, hörmət edir və qiymətləndirirdilər.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ərzində Ermənistandakı heç bir siyasi qüvvə Qarabağ kartını oynatmaqla məqsədinə nail ola bilmədi. Yalan və ya uydurmalarla onlar bir metr də olsun, torpağı zəbt edə bilmədilər. Axı, əvvəlki onilliklər ərzində onlar buna nail ola bilmişdilər. 1918-ci ildən başlayaraq Ermənistanın xeyrinə 30 min kvadratkilometr sahə ayrılmışdı. Bütün bunlar Heydər Əliyevə qədər və ya ondan sonra mümkün olmuşdu.

Müdrik siyasətlə o, erməni ideologiyasını sarsıda bilirdi. Qarabağ müharibəsinə təhrik Ermənistan üçün heç də asan olmadı. Sadə təbliğatla xalqı ekstremist cəhdlərə sövq etmək heç də asan başa gəlmirdi. Qonşu xalqla dinc yanaşı yaşamaq istəyində olan insanlarda nifrət və düşmənçilik hissini oyatmaq üçün onlara Sumqayıtda öz erməni qardaşlarının qanını axıtmaq lazım gəldi.

Heydər Əliyevin Moskvada işləyərkən Qafqaz xalqları arasında beynəlmiləl tərbiyə sahəsindəki məhsuldar fəaliyyəti də xüsusi əhəmiyyət kəsb edirdi. Ermənistan ideoloqlarının Qarabağa kütləvi hücum etməyə cəsarətləri çatmırdı. Yalnız Heydər Əliyev Siyasi Bürodan gedəndən bir neçə gün sonra akademik Aqanbekyanın fitnəkar bəyanatı meydana çıxdı. İfrat millətçilər Qarabağ kartından açıqcasına istifadə etməyə başladılar.

Hətta Qarabağ qırğını başlayandan sonra belə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyən Heydər Əliyev milli siyasətdə öz prinsiplərini dəyişmədi. Şəxsi nüfuzu hesabına o, Naxçıvanı xilas edə, ərazisini qoruya bildi, Ermənistanla sərhəd boyunca atəşkəsə nail oldu. Erməni hərbi hissələrində qulluq edən zabitlərdən biri sərhəddəki mübahisəli məsələlərlə əlaqədar hərbçilərin növbəti görüşündə demişdi: "Digər istiqamətlərdə əsl müharibə gedir. Burada isə biz sizinlə sülhdəyik. Əgər bizim də belə bir ağsaqqalımız olsaydı, yəqin ki, bir-birimizə güllə atmaq əvəzinə ümumi dil tapardıq".

Heydər Əliyevin beynəlmiləlçi fenomenliyini onun həyatında, Azərbaycanın tarixində və tərbiyəvi mühitində axtarmaq lazımdır. Tarixən Azərbaycan öz qonaqpərvərliyi ilə, müxtəlif dinlərə dözümlülüyü ilə, müxtəlif xalqların adət-ənənələrinə hörməti ilə seçilib. Məhz belə bir atmosferdə gələcək Prezident dünyaya göz açmış, böyümüşdür.

Moskva dövründə Heydər Əliyevlə bir yerdə işləmək şərəfinə nail olmuş hər bir şəxs daxili bir razılıqla bu dövrü xatırlayır. Ona uzaq Sibirdə və isti Özbəkistanda, Ukraynada və Moldovada, Latviya və Estoniyada böyük hörmət var idi. Sov. İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini işləyən Heydər Əliyev harada olursa-olsun, hansı problemi həll edirsə-etsin, hər yerdə onu sadə xalq və rəhbərlik böyük hörmətlə qarşılayırdı. İnsanları özünə cəlb etmək bacarığına malik bu insan milli xüsusiyyətlərə hörmətlə yanaşmaqla hər yerdə ehtiramla hərəkət edirdi. O öz işini yaxşı bilirdi.

Heydər Əliyev nəhəng bir ölkənin mühüm sosial-iqtisadi kompleksinə rəhbərlik edirdi. Onun fəaliyyətində millətçiliyə uyğun adicə bir işarə də yox idi. O, 15 İttifaq nazirliklərinin kuratoru olmaqla bərabər, Baykal-Amur magistralının tikintisinə cavab verir, səhiyyə, təhsil, mədəniyyət sahəsindəki proqramları təkmilləşdirirdi. Onun işi hər yerdə uğurla alınır və hər yerdə həmfikirləri var idi.

Moskvadakı işi dövründə Heydər Əliyev Sovet İttifaqını şimaldan cənuba və qərbdən şərqə gəzmişdi. Dəfələrlə ölkənin müxtəlif ərazilərindəki ekstremal şəraitlə üzləşməli olmuşdu.

Nazirlər Soveti sədrinin birinci müavini respublikalarda şəraiti diqqətlə öyrənir, onların problemlərini araşdırır, sosial-iqtisadi problemlərin həlli yolunda konkret kömək göstərir, kütlələrlə beynəlmiləl iş təcrübəsini yayır və Siyasi Büroda dəfələrlə milli məsələlərlə bağlı strateji ideyalar verirdi. Sonralar bu ona Baş katib M.S. Qorbaçovun fəaliyyətinə qiymət vermək hüququ verirdi: "Millətlərarası siyasətdə yol verilən çox ciddi səhvlər bir sıra respublikalarda faciəli vəziyyətə gətirib çıxardı. Alma-Ata (Almatı), Tbilisi, Fərqanə, Bakı, Yeni Uzen, Oş, Pribaltika respublikalarında baş verən hadisələr respublikaların suveren hüquqlarına qarşı atılan addımlar ilə bağlı idi."

Kim bilir, əgər Siyasi Büro o zamanlar Heydər Əliyevin məsləhətlərinə diqqətlə yanaşsaydı, onun təcrübəsindən istifadə etsəydi, hadisələr necə cərəyan edəcəkdi?! Bunun əvəzinə o, siyasi həyatdan təcrid olundu. Onu Qorbaçovun əlaltıları təqib etməyə başladılar və hər vəchlə Bakıda fəal fəaliyyət göstərməsinə mane oldular.

Heydər Əliyev və Mixail Qorbaçov – bunlar siyasi mübarizə meydanında yalnız milli və dini əksqütblər deyildilər. Bu əksqütblülük professional xarakterə malik idi. Qorbaçov – zəifiradəli, qorxaq idi və lider deyildi. O, məsuliyyətdən qaçmağı bacaran, işləyənlərin arxasında gizlənən adam idi. Heydər Əliyev isə əməlinə görə lider idi, ağıllı, praqmatik, nüfuzlu, güclü şəxsiyyət idi. Bunu Qorbaçov hiss etməyə bilməzdi.

Əgər bu iki insanın keyfiyyətlərini müqayisə etsək, açıq demək lazımdır ki, Heydər Əliyevin fundamental təfəkkürü, insana hörmətli münasibəti və digər əxlaqi keyfiyyətləri Qorbaçov üçün əlçatmaz idi.

Məgər Heydər Əliyev dostlarını milli əlamətlərə görəmi seçirdi? Heç vaxt. MDB-nin bütün ərazisində onun yüzlərlə, minlərlə dostları, həmfikirləri, tərəfdarları vardır ki, bu gün də onlar Heydər Əliyevlə bu münasibətdən məmnun olduqlarını bildirirlər. Məgər Heydər Əliyev kadrları milli tərkibə görəmi seçirdi? Heç vaxt. Onun üçün başlıca meyar – professionallıq, işə sədaqət, işgüzarlıq idi. Bu isə Qorbaçovun kadr siyasəti ilə daban-dabana zidd idi.

Y. Andropovun ölümündən sonra hakimiyyət uğrunda mübarizə başladı. Baş katib vəzifəsi üçün müxtəlif familiyaların adı səslənirdi. Siyasi Büronun bəzi üzvləri bu vəzifəyə Heydər Əliyevin gəlməsini istəyirdi. Lakin ona qarşı Qorbaçovun irəli sürdüyü əsas arqument – milliyyət məsələsi ilə bağlı oldu.

Heydər Əliyev Siyasi Büroda yeganə azərbaycanlı, müsəlman idi. Qorbaçov açıqca bəyan edirdi: "Hər bir halda kim isə slavyan olmalıdır".

Moskva dövründən sonra müstəqil Azərbaycanda da Heydər Əliyev beynəlmiləlçilik ruhunu və milli azlıqlara diqqəti müdafiə edirdi. Azərbaycanda 20-dən artıq xalq, milli azlıq, etnik qruplar yaşayır ki, onlar da müxtəlif dil qruplarına aiddirlər. Bu ölkədə elə milli azlıqlar vardır ki, onlar sayca cəmi bir neçə min nəfəri özündə birləşdirir və kompakt olaraq yalnız bu ölkədə yaşayırlar.

Bu etnik qruplardan hər hansı birinin itirilməsi əslində, bütün bəşəriyyət üçün əvəzsiz itki olardı. Belə bir təhlükə onlar üçün Azərbaycanda varmı? Bir sıra beynəlxalq təşkilatlar öz sənədlərində qeyd edirlər ki, azərbaycanlıların onlarla bərabər bir torpaqda yaşayan xalqlara qarşı tolerantlığı etalon hesab edilə bilər. Həqiqətən də, bu xalqa məxsus olan mehriban qonşuluq, dini və etnik dözümlülüyü davam etdirməklə mövcud hakimiyyət dillərin, dinlərin, etnik psixologiyaların, ənənələrin inkişafına həmişə böyük önəm vermişdir. Bu gün Azərbaycan radio verilişlərinin ləzgi, talış, kürd, gürcü və digər dillərdə səslənməsi, tat, ləzgi, udin, xınalıq və digər dillərdə dərsliklərin çap edilməsi dövlətin Azərbaycanda yaşayan milli azlıqların hüquqlarının qorunması sahəsində ardıcıl və məqsədyönlü siyasətinin davam etdiyini təsdiq edir.

Respublikanın müxtəlif rayonlarında kompakt yaşayan azlıqların öz dillərində təhsil alması xüsusi əhəmiyyət kəsb edir. Udin, talış, ləzgi, tat məktəblərində I-IV siniflər üzrə dərslər milli dillərdə keçirilir. Təqdirəlayiq haldır ki, milli azlıqlar tərəfindən yaradılmış mədəniyyət mərkəzləri dövlət tərəfindən müdafiə olunur.

Ölkənin ictimai-siyasi həyatındakı demokratik dəyişikliklər Azərbaycanda yaşayan azsaylı xalqlara olan marağın artmasına şərait yaradır. İnsan hüquqlarının müdafiəsi, müxtəlif etnos və etnik qrupların saxlanması yalnız elmi deyil, həmçinin siyasi əhəmiyyət daşıyır. Dövlətin milli siyasəti yalnız ayrı-ayrı etnos və xalqlara deyil, milli mənsubiyyətindən asılı olmayaraq bütün ölkə vətəndaşlarının həyatın bütün sahələrində bərabərhüquqlu inkişafına xidmət edir.

Quba rayonu ərazisində yerləşən Xınalıq, Buduq, Qnız, Xapıt kimi, Qəbələ rayonu ərazisində yerləşən Nic kimi, İsmayıllı rayonu ərazisində yerləşən Lahıc və İvanovka kimi, Zaqatala rayonu ərazisində yerləşən Katex və Əliabad kimi, Lerik rayonu ərazisində yerləşən Qosmolyan kimi azsaylı xalqların yaşayış məskənləri açıq səma altında etnoqrafik muzeylərə və turist marşrutlarına çevrilə bilər.

Azərbaycan çoxmillətli ölkədir. Burada hətta ən azsaylı millətlərin nümayəndələri belə, icmalarda birləşə, öz mədəniyyət, dil və adətlərini inkişaf etdirə bilərlər. Onlar heç bir dini və milli ayrı-seçkiliyə məruz qalmırlar. Azərbaycanda üç əsas dini cərəyan – islam, xristianlıq və iudazm qarşılıqlı hörmət şəraitində fəaliyyət göstərir.

Misal üçün, Qəbələ rayonunda azsaylı udin xalqı yaşayır. Onların öz həyat tərzi və tarixləri vardır. Bu millətin nümayəndələri deyirlər: “Tanrı özü dualarımızı eşidərək Heydər Əliyevi bizə göndərmişdir. İndi biz özümüzü azad və sərbəst hiss edirik”.

Bu gün Azərbaycanda ölkənin bütün milli spektrlərini birləşdirən çoxsaylı təşkilat və cəmiyyətlər mövcuddur. Rus icması, ukrain, ləzgi, avar, üç yəhudi, tatar, lak və digər mədəni mərkəzlər fəaliyyət göstərir. Onların hər biri öz mədəniyyət və məişətlərini qoruyub saxlamaq və inkişaf etdirmək üçün bərabər imkanlara malikdirlər. Yığcam yaşayış məskənlərində ana dilində dərslər keçirilir, qəzetlər buraxılır, radio və televiziyada efir vaxtları ayrılır.

Bu təşkilatların içərisində rus icması daha böyükdür. Tarixən iki xalq – ruslar və azərbaycanlılar böyük rəğbətlə bir-birinə münasibət göstərmişlər. Vaxtilə Rusiyadan Azərbaycana köçürülən ruslar bu ərazidə məskunlaşaraq özlərinə yeni Vətən qazanmışlar.

Ruslar böyük bir xalq kimi köçürülmə hərəkəti ilə Şərqdə Sakit okeana, Cənubda isə Altay və Tyan-Şana qədər bir əraziyə yayılmışlar. Rusların Zaqafqaziyaya, xüsusilə də, Azərbaycana köçürülməsi də böyük fəallıqla həyata keçirilmişdir.

Azərbaycan ərazisində ilk rus yaşayış məskənləri XIX əsrin 30-cu illərində meydana gəlmişdir. Bunlar əsasən çar hökuməti tərəfindən sürgün edilmiş və ya Rusiyanın cənub vilayətlərindən könüllü olaraq köçüb gəlmiş malokanlar, duxoborlar, subbotniklər olmuşdular.

İcmaların bütünlüklə köçürülməsinə Azərbaycandakı şərait imkan yaradırdı. Burada həmişə qonağa böyük hörmət olmuş, “əcnəbilərə”, başqa təriqətdən olanlara təəccüb doğuracaq dözümlülük olmuşdur.

1833-1843-cü illər ərzində Rusiyadan köçürülənlər tərəfindən 30-dan artıq yaşayış məskəni, o cümlədən Altıağac, Çuxuryurd, Mərəzə, bir qədər sonra isə Astraxanovka, Andreyevka, Slavyanka kəndləri salındı. XIX əsrin sonu XX əsrin əvvəllərində rus hökumətinin Azərbaycana köçürmə siyasəti daha da fəallaşdı.

Azərbaycan ərazisində bu gün də rusların kompakt yaşayış məskənləri qorunmaqdadır. Onlardan ən böyüyü İsmayıllı rayonundakı İvanovka kəndidir ki, burada 3 min nəfərdən artıq rus yaşayır. Nikitinin adını daşıyan və N.J. Minnikovun rəhbərlik etdiyi kolxoz isə respublikadakı ən stabil təsərrüfat olaraq qalır.

Ruslar Azərbaycan millətinin tərkib hissəsi kimi iqtisadiyyata, dövlətçiliyə, elmə, mədəniyyətə və təhsilə sanballı payını vermişlər. Bakı neftçisi Nikolay Konstantinoviç Baybakovun həyatı buna bariz nümunədir. Vaxtilə o, Azərbaycan neft kompleksində rəhbər vəzifələrdən birini tutmuş, Neft sənayesi Xalq Komissarı, sonra SSRİ Dövlət Plan Komitəsinin sədri olmuşdur.

Azərbaycan Prezidenti N.K. Baybakovun səmərəli fəaliyyətini unutmamış və 1995, 1998, 1999-cu illərdə onu Azərbaycanda şəxsən qəbul etmişdir. Rusiya-Azərbaycan dostluq münasibətlərinin inkişafındakı xidmətlərinə görə N.K. Baybakov “Şöhrət” ordeni ilə təltif olunmuşdur.

MDB sammitlərinin birinin yekunları barədə keçirilən mətbuat konfransında Heydər Əliyev demişdi: “Azərbaycandakı ruslar mənim dostlarımdır…” Bu sözlər Azərbaycanda yaşayan hər bir millətə aid edilə bilər.

Ruslara gəldikdə isə, həyati misallar bunu təsdiq edir. Ölkələrimizin bütün tarixi boyu ilk dəfə olaraq rus provaslav kilsəsinin başçısı, Moskva və Ümumrusiya Patriarxı II Aleksey Azərbaycana səfər etdi. Bu tarixi səfər bir daha təsdiq edir ki, Azərbaycan Prezidenti respublikada yaşayan rus vətəndaşlarına, pravoslav xristianlara necə böyük diqqət və qayğı göstərir.

Rus mədəniyyətinin və rus dilinin qorunması, məktəblərdə rus dilində dərslərin tədris olunması, Bakı Slavyan Universiteti kimi unikal tədris müəssisəsinin yaradılması, rus dilində qəzet və jurnalların nəşri, Bakı şəhərində A.S. Puşkinin abidəsinin ucaldılması və sairə tədbirlər bütünlükdə Prezidentin demokratik cəmiyyət quruculuğundakı səmərəli milli siyasətini bir daha təsdiq edir.

Bir neçə il əvvəl Bakıda rus mətbuatının V Ümumdünya konqresi keçirilərkən rus dilinin millətlərarası ünsiyyət vasitəsi kimi inkişaf etdirilməsi qərara alınmışdı. Konqres iştirakçılarının əksəriyyəti qeyd edirdi ki, Azərbaycanda rus dili özünə möhkəm dayaq tapmışdır və bu uğura Azərbaycan Prezidentinin müdrik siyasəti səbəb olmuşdur. Hələ keçən əsrin 70-ci illərindən respublikada rus dilinin hərtərəfli inkişafı üçün həyata keçirilən siyasət öz bəhrəsini verməkdədir. 1970-ci ildən Azərbaycandakı orta məktəblərdə birinci sinifdən rus

dili tədris edilməyə başlandı. Bu gün 400 məktəbdə dərslər rus dilində, 21 ali məktəbdən 20-də isə Azərbaycan və rus dillərində keçirilir. Azərbaycanda rus dilinə belə yüksək münasibət keçmiş SSRİ ərazisində yaşayan xalqlarla sıx əlaqələr saxlamağa imkan verir.

Heydər Əliyevə Azərbaycanda normal həyatı bərqərar etmək, millətlərarası sülhə nail olmaq, sosial-iqtisadi inkişafı təmin etmək, xalqlar və ölkələrarası münasibətləri tənzimləmək nəsib oldu. Başqaları buna nail ola bilmədi. Heydər Əliyev isə bacardı. Buna görə də xalq ona Dahi Beynəlmiləlçi, müsəlman dünyasının lideri, "Qafqazın Atası" adını verdi.

"**Azərbaycan**".-2009.-17 iyun.-N 129.-S.2.

# HEYDƏR ƏLİYEVİN QAZ TƏSƏRRÜFATININ İNKİŞAFINDA ROLU ƏVƏZSİZDİR

**Vaqif ASLANOV,**
AzETLQİ-nin laboratoriya müdiri,
geologiya-mineralogiya elmləri doktoru

**20 iyun qaz təsərrüfatı işçilərinin peşə bayramıdır**

**Azərbaycanın mövcud qaz nəqli sistemi əsasən XX əsrin 70-80-ci illərində ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə formalaşmışdır. Bu mürəkkəb proses uzaqgörənliklə gələcəyə hesablanmış və Şərq ölkələrində analoqu olmayan unikal qaz nəqli sistemidir. Həmin illərdə qaz nəqli sistemi planlı, qapalı sosialist təsərrüfatının tələblərini ödəmək üçün inşa edilmişdir. Bu sistemin şimal istiqamətində Rusiya, cənubdan İran İslam Respublikası, qərbdən Gürcüstanın kommunikasiya sistemləri ilə əlaqələrinin üstünlükləri enerji təhlükəsizliyinin təminatı problemlərinin həllində mühüm əhəmiyyət kəsb edir.**

Son illər qaz nəqli sistemində aparılan texniki-quruculuq işləri, o cümlədən, yeni qaz kəmərlərinin çəkilişi, ölçü qovşaqlarının tikintisi, Naxçıvan MR-in qaz kəmərləri sisteminin İran İslam Respublikasının qaz nəqli sistemi ilə qovuşdurulması və muxtar respublikanın təbii qaz təminatının bərpası, rayonlara yeni qaz kəmərlərinin çəkilməsi və s. qaz nəqli sisteminin dinamik inkişafını göstərir. Abonentlərin məişət sayğacları ilə təmin edilməsi, ölkə ərazisində fəaliyyət göstərməyə imkan verən “Abonent” kompyuter sisteminin mövcudluğu operativ-dispetçer idarəedilməsində “Azəriqaz ” QSC-nin dövrün tələbləri ilə ayaqlaşması kimi qiymətləndirilməlidir.

“Azəriqaz” QSC-də aparılmış səmərəli tədbirlər nəticəsində qaz təchizatı sistemində böyük nailiyyətlər əldə edilmişdir: 80 bölgəyə qaz nəql edilməkdədir; təbii qaz alan əhalinin 80 faizi mavi yanacaqla təmin edilib; qazdan istifadəyə görə yığım iki dəfə, yeraltı qaz anbarlarına vurulan qazın həcmi isə 0,5 milyard kubmetrdən 1 milyard kubmetrə qədər artırılmışdır; qaz alan abonentlərin sayğaclaşması 96 faizə çatdırılmışdır və s.

1989-cu ildə blokadaya düşənə qədər Naxçıvan MR-in yanacaq-enerji təchizatı planlı şəkildə aparılırdı. İdxal sayəsində elektrik enerjisi sahəsində muxtar respublikanın əvvəlki tələbatı nisbətən ödənilsə də, bu sözləri həmin regionun yanacaq təchizatı barədə demək çətindir. 2004-cü ildə muxtar respublikaya təbii qazın verilməsinə dair Azərbaycanla İran arasında müqavilə bağlanılmışdır. Müqavilənin şərtlərinə görə, hər il 350 milyon kubmetr təbii qazın göndərilməsi nəzərdə tutulur. Bu məqsədlə Culfa-Naxçıvan-Şərur-Sədərək magistral qaz kəmərinin (MQK) tikintisi və qazpaylayıcı şəbəkənin bərpası həyata keçirilmişdir. 2006-cı ildə Xoy-Culfa qaz kəmərinin çəkilişi başa çatdırılmışdır.

Hələ ötən əsrin 70-ci illərində sənayenin inkişafı yeni mərhələyə daxil olmuş, karbohidrogenlərin çıxarılması və emalı sahələrində bu məsələ daha qabarıq şəkildə özünü göstərmişdi. Yarımdalma, özüqalxan qazma qurğularının yaradılması, estakadaların inşa edilməsi və platformaların quraşdırılması, dənizin 100-200 metr dərinliklərində neft-qaz çıxarılması üçün stasionar dəniz platformaları yaradılması məhz ulu öndərin adı ilə bağlıdır.

1969-cu ildən 1982-ci ilə qədər Azərbaycanın qaz sənayesi dinamik inkişaf yolu keçmişdir. Bununla bağlı bəzi məqamlara diqqət yetirək: 1970-1971-ci illərdə diametri 1000-1200 millimetr, illik məhsuldarlığı 10 milyard kubmetr olan İran-Astara-Qazıməmməd-Qazax MQK istismara verilmişdir. Bu unikal kəmərin çəkilişinə rəhbərlik edən keçmiş SSRİ qaz sənayesi naziri Aleksey Kortunov demişdir: “Bu kəmərin çəkilib istismara verilməsində şəxsən Heydər Əliyevin təşkilatçılığını, tələbkarlığını və köməyini nazirlik daim hiss etmişdir”. Həmin qaz kəməri üzərində Qazıməmməd, Ağdaş və Qazaxda üç kompressor stansiyası tikilmiş və MQK-nın 55 atmosfer təzyiqlə işləməsi nəzərdə tutulmuşdur.

1970-1982-ci illərdə Yevlax-Laçın-Şahbuz-Naxçıvan və Naxçıvan-Culfa-Ordubad MQK tikilmiş və həmin magistral qaz kəmərindən Şuşa, Qubadlı, Zəngilan və Xankəndinə qaz xətləri çəkilmişdir. Rusiyadan təbii qazın alınması məqsədilə 1972-1982-ci illərdə diametri 1200 millimetr olan Şirvanovka-Qazıməmməd-Ağdaş-Qazax MQK tikilmişdir. Həmin MQK vasitəsilə ildə 25 milyard kubmetr qaz nəql edilirdi. 1984-1986-cı illərdə Yevlax-Şəki, 1986-1987-ci illərdə Şəki-Qax, 1988-1990-cı illərdə Zaqatala-Balakən MQK inşa edilmişdir.

Naxçıvan MR-ə çəkilən 1804 kilometr uzunluğunda qaz xətti iqtisadiyyatın və əhalinin sosial durumunda əhəmiyyət kəsb edərək 7 rayon mərkəzində, kənd və qəsəbələrdə 36 min mənzilin təbii qazla təmin

olunmasına imkan vermişdir. Həmin dövrdə Naxçıvanda illik məhsuldarlığı 6 min ton olan qazdoldurma-paylama stansiyası tikilmişdir.

Ötən əsrin 70-80-ci illərində Qərb istiqamətində "Qaradağ – Qazax – Gürcüstan sərhədi", şimal istiqamətində "Rusiya sərhədi – Qazıməmməd " MQK çəkilmişdir. O zamanlar Zaqafqaziya respublikalarının təbii qazla təchizatı əsasən Azərbaycanın MQK vasitəsilə həyata keçirilirdi. Şəxsən Heydər Əliyevin səyi nəticəsində qısa müddətdə Xaldan-Şəki-Qax-Zaqatala-Balakən MQK-nin çəkilişi başa çatdırıldı. Qaradağla Sumqayıt arasında 40 kilometrlik xətt çəkildi.

1970-ci ilə qədər respublikada qazlaşdırılmış mənzillərin sayı 250 min ədəd təşkil edirdisə, 1980-ci ildə bu, bir milyona çatdırılmışdı. Xatırladım ki, dağlıq yaşayış məntəqələrinin maye qazla təmin olunması problemi isə Prezident İlham Əliyevin gərgin əməyi sayəsində öz həllini tapmışdır.

Ötən əsrin 80-ci illərində üzən qazma qurğularından səmərəli istifadə olunması nəticəsində dənizin 80-350 metr dərinliyində 1979-cu ildə "Günəşli", 1985-ci ildə "Çıraq" və 1987-ci ildə "Azəri " dəniz strukturlarında nəhəng neft-qaz yataqları kəşf edilmişdir. Lakin keçmiş İttifaq hökuməti həmin yataqların işlənməyə daxil edilməsinə tələsmirdi. 80-ci illərdə Qərbi Sibirin neft-qaz yataqlarının intensiv işlənməyə daxil edilməsi məqsədilə kapitalın əsas hissəsi həmin yataqların mənimsənilməsinə yönəldilmişdir. Yeni kəşf edilmiş dəniz yataqlarının işlənilməsi məqsədilə kapital yatırılmasına keçmiş İttifaq rəhbərliyi qısqanclıqla yanaşırdı. Keçmiş İttifaq çökdükdən sonra xarici şirkətlər həmin strateji obyektlərin istismarına investisiyalar yönəltmişdilər. 1984-cü ildə Dərin dəniz özülləri zavodunun birinci növbəsi işə düşmüşdür. Dəniz yataqlarının geniş miqyaslı kəşfiyyatının və istismarının aparılması üçün 90-cı illərdə zavod modernləşdirilmişdir və hazırda ulu öndər Heydər Əliyevin adını daşıyır.

1983-1993-cü illərdə hakimiyyətdə yaranmış boşluq qaz təsərrüfatına da mənfi təsirini göstərməyə bilməzdi. Belə ki, elektrik stansiyalarına və mühüm sənaye obyektlərinə verilən qaz həcmi kəskin şəkildə azalmış, qış mövsümündə qazın istehlakçılara çatdırılmasında fasilələrə yol verilmişdir.

1993-cü ildən başlayaraq ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə həm siyasi, həm də iqtisadi sahələrdə islahatlar cəsarətlə aparılır. Azərbaycan iqtisadi sahədə dünyada ən inkişaf etmiş ölkələr sırasına daxil olmuş və Avropanın enerji təhlükəsizliyinin etibarlı qorunmasında mühüm rol oynamağa başlamışdır. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz layihələri artıq reallaşmışdır.

1993-cü ildə Yaponiya hökuməti Azərbaycana qaz layihəsinin hazırlanması üzrə tədqiqatın maliyyələşdirilməsi məqsədilə əvəzsiz maliyyə vəsaiti ayırmışdır. Yeni qaz layihəsinin məqsəd və vəzifələri aşağıdakılardan ibarət idi: təbii qazdan istifadənin səmərəliliyini artırmaq, beynəlxalq standartlara uyğun ölçü cihazlarını təkmilləşdirmək; sayğacların və yeni avadanlıqların tətbiqi hesabına qazın sərf olunması üzrə əməliyyatların kommersiya əsasına keçirilməsi; qaz xətlərində sızmanın aşkarlanması, qazların xüsusiyyətlərinin təyin edilməsi və katod mühafizəsi sisteminin maliyyələşdirilməsi və s. Xatırladım ki, nəzərdə tutulan bu amillər uğurla reallaşdırılmışdır.

1996-cı ilin iyunun 4-də "Şahdəniz" perspektiv strukturunun kəşfi və işlənməsinə dair beynəlxalq müqavilə bağlanmışdır. Sənaye ehtiyatları 1,2 trilyon kubmetr təbii qaz və 300 mln. ton qaz kondensatı olan, nəhəng "Şahdəniz" qazkondensat yatağı "İstiqlal" yarımdalma dərin qazma qurğusundan (YDQQ) iki dərin kəşfiyyat quyusu vasitəsilə kəşf edilmişdir.

1997-ci ildə "Çıraq-1″ platformasından ilkin neft çıxarılmağa başlanmışdır. "Çıraq-1″ platforması dənizin 120 metr dərinliyində yerləşdirilmişdir. Buradan Neft Daşlarına qaz kəməri çəkilmişdir. 1998-ci ildən yataqdan sutkada 3-4 milyon kubmetr səmt qazı nəql olunur.

1999-cu ildə Avropa Birliyinin qərargahında "Azəriqaz" QSC-nin nümayəndələrinin və qiymətləndirici komitənin iştirakı ilə "Qazın nəqletmə idarə sistemində təhlükəsizlik tədbirlərinin yüksəldilməsi" haqqında TASIS layihəsi üzrə tender keçirilmişdir. 1999-2001-ci illərdə tenderin qalibi olan "Sofregaz " şirkəti TASIS layihəsi çərçivəsində TİƏ-ni işləyib hazırlamışdır.

Qaz kəmərlərinin korroziyadan mühafizəsi məqsədilə Almaniyanın "QUANTE" və "RURVERS " şirkətlərindən katod mühafizəsi avadanlıqları və korroziyaya uğramış qaz kəmərlərinin bərpa olunması üçün polad borular alınmış və "Azəriqaznəql " İB-yə təhvil verilmişdir.

2006-cı ildə "Şahdəniz" qazkondensat yatağından yüksək təzyiqli təbii qazın qəbulunu reallaşdırmaq məqsədilə Səngəçal baş qurğusundan Qaradağ və Qazıməmməd qazpaylayıcı stansiyalarına qazın təzyiqi uyğun olaraq, 45 və 90 atmosferdə yeni qaz kəmərlərinin çəkilişi başa çatdırılmışdır. Beynəlxalq layihələrin həyata keçirilməsi Azərbaycan üzrə 2009-2010-cu illər üçün qaz hasilatını 20 milyard kubmetrə çatdırmağa imkan verəcəkdir.

Onu da xatırladım ki, 2001-ci ildə Neft Daşları-Çilov adası-Zirə sualtı qaz kəmərinin müxtəlif sahələrində təmir-bərpa işləri aparıldıqdan sonra sahilə nəql edilən qazın həcmi gündə 1,6 milyon kubmetrdən

2,7 milyon kubmetrə qədər artmışdır. 2003-cü ildə "Bahar" və "Neft Daşları" yataqları arasında uzunluğu 68 kilometr olan yeni qaz kəməri də çəkilmişdir, burada dənizin dərinliyi 8-30 metr arasındadır".

Ulu öndərimiz Heydər Əliyev ölkədə enerji potensialından səmərəli istifadə edilməsi, əhalinin və iqtisadiyyatın enerjidaşıyıcıları ilə fasiləsiz təmin olunması, sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə, 2000-ci ilin 29 iyununda "Əhalinin və iqtisadiyyatın enerjidaşıyıcıları ilə təminatının yaxşılaşdırılması tədbirləri haqqında" fərman imzalamışdır. Həmin fərmana görə yanacaq-energetika balansına uyğun olaraq əhalinin, iqtisadiyyatın elektrik və istilik enerjisi ilə təmin edilməsi, enerji sistemində zəruri təmir-bərpa işlərinin aparılması, qış mövsümünə hazırlıq işlərinin görülməsi barədə kompleks tədbirlər proqramını işləyib hazırlamaq tələb olunurdu. Bununla əlaqədar "Azəriqaz" QSC bir sıra tədbirlər həyata keçirmişdir: Bakı 1 saylı istilik-elektrik mərkəzinin qazla təchiz olunması məqsədilə "Qum adası – İEM - 1" qaz kəməri istismara verilmişdir; " EP – 300 " etilen-propilen kompleksinin buxar generatorlarının təbii qazla təchiz edilməsi məqsədilə Qaradağ-Sumqayıt qaz kəmərinin 17 kilometrlik hissəsi tikilmişdir; "Şimal" İES-in və Sumqayıt İEM-in rekonstruksiyası layihələri çərçivəsində Qaradağdan sözügedən obyektlərə 90 kilometrlik və 37 atmosfer təzyiqli yeni qaz kəməri çəkilmiş və Qaradağda yeni KS tikilmişdir; Gəncənin qaz təchizatı sistemində təmir-bərpa işləri aparılmışdır…

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyən edilmiş neft-qaz strategiyası Azərbaycana böyük uğurlar gətirməkdədir. Respublikaya böyük həcmdə sərmayə qoyulmaqla geniş infrastrukturlar yaradılmış, yeni boru kəmərləri tikilmiş və nəhəng yataqlar istismara daxil edilmişdir. Ölkənin sosial-iqtisadi inkişafında əhəmiyyətli yer tutan və iqtisadiyyatın əsaslarından olan təbii qaz təminatının bərpası işində xeyli nailiyyətlər əldə edilməkdədir. Məhz "Azəriqaz" QSC-nin son illər əldə etdiyi nailiyyətlər, qazandığı uğurlar ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin adları ilə bağlıdır. Qazanılmış nailiyyətlər qaz təsərrüfatı işçilərini gələcəkdə möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında istehlakçıların təbii qazla tam təmin edilməsi üçün bütün imkan və bacarıqlarının sərf edilməsinə ruhlandırır.

Respublika Prezidentinin "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)" təsdiq edilməsi haqqında 11 fevral 2004-cü il tarixli fərmanının və "Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 14 fevral 2005-ci tarixli, Bakı şəhəri qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair 27 fevral 2006-cı il tarixli sərəncamlarının icrası, qazın istilik-elektrik stansiyalarına çatdırılması, yeni modul tipli istilik-elektrik stansiyalarının təbii qazla təminatı, təbii qaz almayan rayon mərkəzlərinə (Lerik, Yardımlı, İmişli, Ağcabədi, Beyləqan) təbii qazın verilməsinin bərpası, respublika üzrə təbii qazdan istifadə edən əhalinin mənzillərində məişət qaz sayğaclarının quraşdırılmasına dair tapşırıqlar vaxtından əvvəl yerinə yetirilmişdir.

Heydər Əliyev xalqımızın milli iftixarıdır, ulu öndərimizin möhkəm bünövrə üzərində qurduğu müstəqil Azərbaycan dövləti hazırda Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü strateji xətt sayəsində beynəlxalq aləmdə öz nüfuzunu getdikcə artırır. Ölkəmizin qaz təsərrüfatı işçiləri qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsinə nail olmaq üçün bütün imkanlardan istifadə edəcəklər.

"**Xalq qəzeti**".-2009.-20 iyun.-N 132.-S.4.

## XALQINA XOŞBƏXTLİK BƏXŞ EDƏN DAHİ

**Miri QƏNBƏROV,**
Milli Məclisin deputatı,“Azərkontrakt” SC-nin sədri

Məşhur rus yazıçısı N.V.Qoqol “Nevski prospekti” povestində yazmışdır: “….İnsan elə bir ilahi varlıqdır ki, heç zaman birdəfəlik onun bütün xüsusiyyətlərini sadalaya bilməzsən, nə qədər ona çox diqqət yetirirsən, onda bir o qədər çox yeni xüsusiyyətlər aşkarlanır və onların təsviri sonsuza qədər uzanır”. Azərbaycan xalqının ümummilli lideri, dünyanın siyasət ponteonunda öz yeri olan Heydər Əliyev də məhz belə insanlardandır. Ömrü boyu xalqına, vətəninə sədaqətlə xidmət edən bu dahi 40 il əvvəl Azərbaycanda siyasi hakimiyyətə gəldi. Amma onun doğma Azərbaycan qarşısında xidmətləri təkcə hakimiyyət olimpində olduğu illərlə bitmir.

Heydər Əliyev bütün həyatını canı qədər sevdiyi Azərbaycana, onun tərəqqisinə, inkişafına, müstəqilliyinə, təhlükəsizliyinə, əmin-amanlığına həsr edən böyük vətəndaş olmuşdur. İstər sovet rejiminin hakim olduğu illərdə milli təhlükəsizlik orqanlarında çalışarkən, istər həmin dövrdə Azərbaycana rəhbərlik edərkən, istər nəhəng bir dövlətin əsas rəhbərlərindən biri olanda, istər Qorbaçovun ədalətsizliyi üzündən dövlət işindən uzaqlaşdırılanda, istərsə də müstəqil Azərbaycana rəhbərliyi öz üzərinə götürəndən sonra.

Ulu öndərin həyatının mübarizələrlə dolu olan mərhələlərini öyrəndikcə görürük ki, Heydər Əliyev həqiqətən böyük xarakterə malik, misilsiz şəxsiyyət olmuşdur. Filosoflar belə şəxsiyyətlər haqqında deyiblər: “Böyük xarakterə malik belə insanlar öz əməlləri, fəaliyyətləri ilə böyük məqsədlərə çatır, obyektiv tələblərə uyğun, ağıllı şəkildə əsaslandırılmış və sosial əhəmiyyətli idealları əldə edir və başqaları üçün mayaka çevrilirlər”.

Ulu öndər Heydər Əliyevin ən ali məqsədi, böyük amalı heç şübhəsiz müstəqil, azad və firavan Azərbaycan dövlətini qurmaq olmuşdur. Bu məqsəd və amal bütün həyatı boyu onu mübarizəyə, çevik siyasi gedişlərə məcbur etmişdir. Bu gün şəxsiyyəti və fəaliyyəti dövlətimizin atributu, simvolu səviyyəsinə qalxmış Heydər Əliyevin irsi – vətənə, xalqa sədaqətlə xidmət etmək, müstəqilliyimizi göz bəbəyi kimi qorumaq və bu yolda canını belə əsirgəməmək kimi müqəddəs dəyərləri təkcə siyasi elita üçün yox, bütün vətəndaşlarımız üçün həyat məktəbidir.

Bu dahi insan harada olur-olsun, əzmkarlığı, dərin düşüncəsi, məntiqi və polad iradəsi sayəsində saysız-hesabsız uğurlara imza atmışdır. Xüsusi xidmət orqanlarında, imperiya rejiminin sərt tələblərinə və azərbaycanlılara olan ögey münasibətlərə baxmayaraq, sıravi əməliyyat işçisi olan Heydər Əliyev az bir zamanda şöbə rəisi, Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini və daha sonra general-mayor rütbəsi alaraq DTK sədri vəzifəsinə qədər yüksəldi. Hər dəfə bu qapalı təşkilatın yüksək vəzifəli rəhbərləri ona rəy verərkən yazırdılar: “Zəhmətkeş, iradəli və prinsipial rəhbər işçidir. Xidməti problemlərin həll olunmasında yoldaş Əliyev prinsipiallıq və qətiyyətlilik nümayiş etdirir. Daha mürəkkəb tədbirlərin keçirilməsində şəxsən özü iştirak edir….”

Həmin dövrdən o da məlumdur ki, SSRİ dövlət təhlükəsizlik orqanlarında belə nailiyyətlərə imza atmaq, vəzifə pillələrilə sürətlə irəliləmək hər azərbaycanlıya nəsib olmamışdır. Heydər Əliyev öz əzmkarlığı, qətiyyəti, ağlı və istedadı sayəsində pillə-pillə ucaldı. Ötən əsrin 37-ci il repressiyalarına məruz qalmış Azərbaycan ziyalılar nəslinin ən qabaqcıl nümayəndələrinin sonradan bəraət alması, yetişməkdə olan gənc, istedadlı, yaradıcı insanların repressiya məngənəsindən qorunması və onlara həmişə dayaq durması misilsiz xidmətlərinin çox az hissəsidir.

Heydər Əliyev Azərbaycan tarixinə, ən azından onun milli təhlükəsizlik orqanlarının tarixinə, bir strukturun milliləşdirilməsi ilə son dərəcə böyük töhfələr vermiş, XX əsrin ikinci yarısında Azərbaycan təhlükəsizlik orqanları üçün kadr potensialı yaratmış, onu yeni, milli mənafeyə və maraqlara xidmət etmək istiqamətinə yönəltmiş bir şəxsiyyət kimi də daxil olmuşdur. Məhz həmin dövrdə Heydər Əliyev Azərbaycanın dövlət təhlükəsizlik orqanlarını milli kadrlarla möhkəmləndirdi.

Məşhur klassiklərdən Viktor Hüqo yazmışdır: “Həqiqi dövlət xadimlərinin üstün keyfiyyəti ondadır ki, hər bir zərurətdən fayda götürməyi bacarsın, hətta şəraitin ən qorxunc axarını belə dövlətin xeyrinə dəyişə bilsin”. Heydər Əliyev rəhbər olduğu bütün işlərində bunu bacarmış və həyata keçirmişdir.

1969-cu il iyulun 14-də SSRİ Dövlət Təhlükəsizlik xidmətinin 46 yaşlı generalı Heydər Əliyev Azərbaycanın lideri oldu. Postsovet məkanında, sosial-iqtisadi inkişaf tempinə görə “qardaş sovet respublikaları”n sırasında sonuncu yerlərdən birini tutan Azərbaycanda nailiyyətlərdən danışmaq çox çətin idi. Ölkənin istər neft sənayesində, istər kənd təsərrüfatında, istərsə digər sahələrində ətalət hökm sürürdü. Heydər Əliyevin hakimiyyətə gəlişi ilə qısa vaxtda hər şey kökündən dəyişməyə başladı. Respublikada sanki möcüzə

baş verirdi. Azərbaycan böyük bir tikinti meydanına çevrilmişdi. Harada genişmiqyaslı işlər gedirdisə, respublikanın yeni rəhbərini orada görmək olardı. Hər şeyi nəzarətdə saxlayır, göstərişlər verir, problemləri öyrənir və lazımi məsələlərin həllinə kömək edirdi.

O zamanlar Heydər Əliyevin kadr siyasəti hamını hərəkətə gətirmişdi. Onun diqqət yetirmədiyi sahənin adını çəkmək qeyri-mümkündür. Yadımdadır, o dövrlər respublikanın ticarət obyektlərində baş alıb gedən özbaşınalığa da məhz Heydər Əliyevin həyata keçirdiyi inzibati tədbirlər nəticəsində son qoyuldu. Onun rəhbərliyi ilə keçirilən müşavirələrin birində Azərittifaqın fəaliyyəti geniş müzakirə edildi, ciddi nöqsanlar kəskin tənqid olundu və qısa zamanda ticarətdə qayda yaradılması ilə bağlı konkret tapşırıqlar verildi. Respublikanın bütün ticarət şəbəkələrində hamı bilirdi ki, Heydər Əliyev istənilən məqamda vəziyyəti aydınlaşdırıb səhvlərə görə ən yüksək vəzifəli adamları cəzalandıra bilər. Ona görə də hamı ticarət xidmətini tələblər səviyyəsində qurmağa çalışırdı.

Heydər Əliyev hakimiyyətdə olduğu birinci mərhələdə – 13 ildə yüzlərlə müəssisə tikildi, maşınqayırma sənayesinin təzə sahələri yaradıldı, neftayırma sənayesi, dəmir yol nəqliyyatı rekonstruksiya edildi, kimya, yeyinti və digər sənaye sahələri yeni inkişaf mərhələsinə qədəm qoydu. Neft hasilatı yüksəlməyə başladı və artıq 1975-ci ildə ümumi neft və qaz hasilatının həcmi 1941-ci ildəki ən yüksək neft və qaz hasilatı səviyyəsini ötüb keçdi.

Azərbaycanın şəhər və qəsəbələrinin, kəndlərinin siması sürətlə dəyişməyə, insanların sosial-rifah halı durmadan yaxşılaşmağa başladı. Az zamanda Azərbaycanın keçmiş sovetlər birliyində qabaqcıllar sırasına çıxması Heydər Əliyevə, ölkənin gələcəyinə ünvanlanan bir sıra strateji planlarının həyata keçirilməsinə şərait yaradırdı. Əvvəla, Azərbaycan və azərbaycanlılara hər yerdə münasibət kökündən dəyişdi, respublika təkcə İttifaqda deyil, ondan kənarda da tanınmağa başlandı. İkinci tərəfdən Azərbaycanı inkişaf etdirəcək kadr hazırlığı strategiyası üçün imkanlar açıldı. Bunlardan ən vacibi hərbi kadrların hazırlanması idi. Heydər Əliyevin ciddi səyləri, mübarizəsi sayəsində Bakıda C.Naxçıvanski adına hərbi məktəb açıldı. Ən müxtəlif səviyyələrdə təzyiq və təsirlərə baxmayaraq, Heydər Əliyev şəxsi nüfuzundan istifadə edərək ittifaq rəhbərliyindən bu işə razılıq almağa nail oldu.

Digər əzəmətli planlardan biri Heydər Əliyevin bilikli, istedadlı Azərbaycan balalarını ittifaqın nüfuzlu ali məktəblərinə təhsil almağa göndərməsi idi. Heydər Əliyev buna da nail oldu və 1970-80-ci illərdə onun təşəbbüsü ilə keçmiş SSRİ-nin 50-dən artıq şəhərinin 170-dən çox məşhur ali məktəbində ölkəmizin iqtisadiyyatı, təhsili və mədəniyyətinin bütün əsas sahələrini əhatə edən və ən zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən çox azərbaycanlı ali təhsilli mütəxəssis hazırlandı. Çox-çox sonralar ulu öndər bu kontingenti “Azərbaycanın milli sərvəti” adlandırmışdır.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi həmin illərin tarixə mədəniyyətimizin, ədəbiyyatımızın və incəsənətimizin intibah dövrü kimi daxil olması da təsadüfi deyil. Məhz bu böyük dahinin sonsuz diqqəti, qayğısı sayəsində neçə-neçə şair, yazıçı, bəstəkar, rəssam və digər sənət ustalarımız SSRİ-nin ən ali mükafatlarına layiq görüldü.

Bütün bunlarla yanaşı Heydər Əliyev sovet rejiminin ikili standartlarına, təzyiqlərinə baxmayaraq, Azərbaycan dilinin qorunmasına və inkişafına da böyük töhfələr vermişdir. Məhz onun siyasi gedişləri sayəsində Azərbaycan dili Azərbaycanda rus dili ilə yanaşı dövlət dili kimi respublikamızın o zamanlar qəbul edilmiş Konstitusiyasına daxil edilmişdir.

Böyük dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk dövrdə gördüyü işlərin miqyasına və yönünə, əhəmiyyətinə və ünvanına dərindən nüfuz edəndə qəti olaraq bu qənaətə gəlirik ki, böyük düşüncə, güclü məntiq, sahibi olan insan qabaqcadan Azərbaycanın müstəqilliyini, azadlığını görməyə, hiss etməyə bilməzdi.

“Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun, hər şeydən əvvəl iqtisadi cəhətdən. Çünki, istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur. Məsələn, mən burada çoxlu elektrik stansiyaları tikdirirdim. Məndən soruşurdular ki, bunlar sənin nəyinə lazımdır? Mən onlara demirdim nə üçün bu lazımdır….

Mən istəyirdim mənim ölkəm, mənim xalqım istənilən şəraitdə müstəqil yaşaya bilsin”.

Heydər Əliyev dünya siyasətində yer tutan şəxsiyyət kimi Azərbaycanın qismətinə düşsə də, 70 il ömür sürmüş SSRİ kimi böyük bir ölkənin ictimai-siyasi həyatında da özünəməxsus yeri, nüfuzu olmuşdur.

Sovet İttifaqı Kommunist Partiyası MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev ona bəslənən inam və etimadı Moskvada da şərəflə doğrultdu. Ağır iqtisadi böhran qarşısında olan nəhəng dövlətin ən ağır sahələrinə rəhbərlik etmək, istehsal sənayesində, dəmir yolunda qayda yaratmaq, Baykal Amur Magistralının tikintisini sürətləndirmək, daha nələr və nələr bu əzəmətli insanın sanki potensialını, işgüzarlığını, iradəsini və qətiyyətini, idarəçilik imkanlarının yeni keyfiyyətlərini üzə çıxarmaq üçün idi. Böyük türk Kremlin oturuşmuş siyasi intriqalarını öz tükənməz enerjisi, əzmkarlığı, yüksək insani

keyfiyyətləri ilə heyrətdə qoymuşdu. Onun tabeçiliyində işləyən minlərlə insan bu müdrik insanla işləməkdən zövq alır və ondan çox şey öyrənirdi.

Yüksək mənəvi dəyərləri özündə birləşdirən Heydər Əliyev şəxsiyyətinin siyasi iradəsinin gücü onun dünyagörüşünü tamamlayırdı. Onunla işləmək həm çətin, həm asan, həm də şərəfli idi. Ciddi, tələbkar olduğu qədər də qayğıkeş, diqqətli bir insan olaraq hər kəsin dəyərini bilirdi. Onun az bir zamanda Sovetlər İttifaqının bütün regionlarında yüksək nüfuz qazanması Kremldəki siyasi elitanın bir çox nümayəndələrini qıcıqlandırmağa başlamışdı.

XX əsrin 80-ci illərinin ortalarında Moskvada hakimiyyət olimpində gedən yerdəyişmələr zamanı dünya mətbuatı Heydər Əliyev şəxsiyyətinə diqqət göstərir, politoloqlar, siyasi analitiklərsə onu dövlət başçısı postuna əsas namizəd sayırdılar.

Lakin hakimiyyətə gələn Qorbaçov Heydər Əliyevin artan nüfuzuna seyrci qala bilmir və onunla bir cərgədə durmağa belə ehtiyat edirdi. Ədalətsiz prinsipi qəbul etməyən Heydər Əliyev mərdi-mərdanə mübarizə apardı.

Tanrı onu qorudu, qorudu ki, yenidən yüksəltsin, ucaltsın, layiq olduğu zirvəyə qaldırsın, xalqına əbədi müstəqillik, xoşbəxtlik bəxş etsin.

Qorbaçov hakimiyyətinin eybəcər idarəçilik üsulları regionlarda qızışdırılan münaqişələrə rəvac verdi. Erməni şovinistlərinin toruna düşən Qorbaçov 1990-cı il yanvarın 20-də təpədən-dırnağa silahlanmış muzdlularla Bakını qanına qəltan etdi. Xalqı bu oyuna sürükləyən, dövlət idarəçiliyindən xəbərsiz olan Azərbaycanın o vaxtkı rəhbərləri isə Moskvanın qərarlarını can-başla yerinə yetirirdilər.

Təqiblər altında qürbətdə yaşayan Heydər Əliyev bu ədalətsizliyə, xalqına qarşı yönələn bu təcavüzə biganə qala bilməzdi və qalmadı. Moskvadakı Azərbaycan nümayəndəliyinə gəlib orada verdiyi bəyanat ildırım sürətilə bütün dünyanı dolaşdı. Faciəsini təkbaşına yaşayan xalqımız məhz bu bəyanatdan sonra özünə gəlməyə, mübarizənin hələ yenicə başladığını və başsız qalmadığını hiss etməyə başladı.

Canlı şahidi olduğumuz bu hadisələrin bütün təfərrüatlarını söyləməklə qurtaran deyil. Heydər Əliyevin xilaskarlıq missiyası 1991-ci ildən, onun Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə sədr seçiləndən sonra başladı. Heydər Əliyev Azərbaycanın xilasına blokada, aclıq və səfalət içində olan, Ermənistan silahlı qüvvələrinin aramsız hücumlarına məruz qalan Naxçıvan torpağından başladı. Onun bu missiyasını xatırlayarkən alman filosofu Hegelin belə bir ifadəsi yada düşür: “Sürətlə iflasa yaxınlaşan xalqın taleyi yalnız dahi tərəfindən xilas oluna bilər”.

1993-cü ilin iyun ayında Azərbaycan dövlətçiliyi məhv olmaq həddinə yaxınlaşmışdı. Kim bilir, Tanrı bu dahini vaxtında yetirməsəydi, məmləkətin aqibəti necə olacaqdı. Bir tərəfdən qəsəbə, kənd və şəhərlərimiz ermənilər tərəfindən işğal olunur, minlərlə insan yurd-yuvalarından didərgin düşür, başıpozuq orduda əlinə yenicə silah götürmüş gənclərimiz qırılır, digər tərəfdən ölkə daxilində hakimiyyət uğrunda qruplar arasında gedən mübarizə silahlı münaqişəyə çevrilir, qardaş qanı tökülür, ölkə vətəndaş müharibəsi həddinə çatırdı.

O günlərdən söz açanda insanlar “getsin o günlər, bir də gəlməsin” deyirlər. O günləri tarixin arxivinə göndərən, xalqa əmin-amanlığı bəxş edən, nəinki müstəqilliyimizi, bütövlükdə Azərbaycanımızı xilas edən Heydər Əliyevin misilsiz xidmətləri heç vaxt yaddaşlardan silinməyəcək.

Bu böyük şəxsiyyətin, xilaskarın hakimiyyətə qayıdışından az sonra nazir kimi hökumətdə təmsil olunmaq şərəfi mənim də qismətimə düşüb. Etiraf etməliyəm ki, öz dövlət rəhbərimin beynəlxalq aləmdə nüfuzunu, hadisələrə təsir imkanlarını, qeyri-adi iş qabiliyyətini görüb qürur hissləri yaşamış və çox sevinmişəm. O bənzərsiz insanın bütün varlığı Azərbaycana sonsuz və ülvi bir məhəbbətlə yoğrulmuşdu.

Yadımdadır, Azərbaycanın haqlı səsi dünyada zəif eşidiləndə, ölkəmiz informasiya blokadasında olanda mənə tapşırdı ki, respublikanın xarici ticarət əlaqələrini genişləndirin, qabaqcıl ölkələrlə əlaqələr qurun, onları respublikamıza dəvət edin, perspektivlərimizi, imkanlarımızı onlara ətraflı açıqlayın. Təbii ki, bu tapşırıqların hər birinin arxasında gənc, müstəqil Azərbaycanı dünyaya tanıtmaq, ticarət-iqtisadi əməkdaşlıq münasibətlərini siyasi əməkdaşlığa çevirmək məqsədi dururdu.

Heydər Əliyev son dərəcə praqmatik və realist bir siyasətçi, dövlət başçısı idi. Xalq bilirdi ki, milli dövlətçiliyin xilası yalnız Heydər Əliyevin dərin təfəkkürü, rəhbərliyi və nüfuzu ilə mümkündür. Çünki Heydər Əliyev dövlət quruculuğunun və idarəetmənin qeyri-adi istedadı ilə yanaşı, beynəlxalq aləmdə çoxdan qəbul olunmuş siyasi nüfuzu da var idi.

Heydər Əliyev şəxsiyyətinin Azərbaycanın hakimiyyət olimpinə gəlməsindən 40 il keçir. Bunun 34 ili onun respublikamıza rəhbərliyi dövrünü əhatə edir. Platon deyir ki, “dünya o vaxt xoşbəxt ola bilər ki, dövlət

başçıları müdrik olsunlar və ya müdriklər dövlət başçısı olsunlar". Heydər Əliyev də Azərbaycan dövlətinə ömrünün sonunadək müdrikcəsinə rəhbərlik etdi.

**"Azərbaycan".-**2009.-30 iyun.-N 139.-S.6.

# HEYDƏR ƏLİYEV AZƏRBAYCAN ELMİNİN HAMİSİ İDİ

**Şahbaz MURADOV,**
AMEA-nın müxbir üzvü ,
iqtisad elmləri doktoru, professor

Azərbaycan Prezidenti İlham Əliyevin Milli Elmlər Akademiyasının 60 illiyinə həsr edilmiş təntənəli yığıncaqdakı çıxışında **"Bütün dövrlərdə – 70-ci illərdə, ondan sonra, 90-cı illərdə Heydər Əliyevin elmə diqqəti və qayğısı çox yüksək səviyyədə idi. O, çox gözəl bilirdi ki, hər bir ölkənin, hər bir xalqın tərəqqisində elmin inkişafı müstəsna rol oynayır. Müxtəlif ölkələrin tarixinə, keçmişinə, təcrübəsinə nəzər salaraq görürük ki, ölkənin inkişafını, potensialını elmin inkişafı müəyyən edir. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq, onu da görəcəyik: Nə təbii ehtiyatlar, nə coğrafi vəziyyət yox, məhz intellektual potensial, məhz elmin səviyyəsi o ölkələrin tərəqqisini müəyyən edir və ölkəni inkişaf etmiş ölkəyə çevirir … Mən bir daha demək istəyirəm, bu, qəti fikrimdir ki, hər bir ölkənin normal inkişafı üçün, ilk növbədə bilik, savad, elmin inkişafı lazımdır"** - deməsi onun sözün əsl mənasında dahi şəxsiyyət Heydər Əliyevin layiqli davamçısı və varisi olduğunu təsdiq edir və ulu öndərimiz kimi o da ölkəmizdə elmin, təhsilin və intellektual insan potensialının və insan kapitalının inkişafının vacibliyini ön plana çəkir. Bu təsadüfi olmayıb, ulu öndərimiz Heydər Əliyevin ən dəyərli tövsiyələrindən biridir ki, bu gün cənab İlham Əliyev onu uğurla həyata keçirməkdədir. Bəli, **bu da bir həqiqətdir ki, 40 il bundan öncə** - 1969-cu ilin 14 iyulunda Azərbaycan Respublikasına rəhbər təyin edilmiş Heydər Əlirza oğlu Əliyev ilk gündən ölkəmizdə elmin və təhsilin inkişafına xüsusi diqqət və qayğı göstərməyə başlamış və ömrünün sonunadək onun ən böyük hamisi və qarantı olmuşdur.

Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi bu böyük şəxsiyyət haqqında söz demək nə qədər çətin və məsuliyyətli olsa da, onunla bir dövrdə yaşamış, onun ölkəmizə rəhbərlik etdiyi illərdə iqtisad elmləri doktoru elmi dərəcəsi və professor elmi adı, AMEA-nın müxbir üzvü rütbəsi almış, kiçik elmi işçi vəzifəsindən Azərbaycan iqtisad elminin baş qərargahı sayılan AMEA-nın İqtisadiyyat İnstitutunun direktoru vəzifəsinədək yüksəlmiş, dəfələrlə bu böyük şəxsiyyətlə təmasda olmuş bir alim kimi ulu öndərimizin Azərbaycanda **elmin, təhsilin və insan şəxsiyyətinin** inkişafı sahəsindəki böyük, əvəzsiz və **cahanşümul** xidmətləri haqqında öz fikirlərimi bölüşməyə ehtiyac duyuram. Zamanın çərçivəsinə sığmayan bu dahi şəxsiyyəti, dövlət qurucusu və tarix yaradan şəxsiyyəti dünyanın digər ölkələrinin rəhbərlərindən fərqləndirən ən müsbət keyfiyyətlərindən biri də məhz onun elm adamları ilə sıx bağlılığı, elm adamlarına olan dərin məhəbbəti və onlara qayğı ilə yanaşması idi. O, 1998-ci ildə dünyanın ən qədim və nüfuzlu elm ocaqlarından biri sayılan Rusiya Elmlər Akademiyasının tanınmış elm adamları ilə tarixi görüşündə çıxış edərkən: **"şəxsən mən elm xadimlərinə həmişə böyük hörmətlə yanaşmışam… ona görə ki, elm adamları müstəsna adamlardır. Onlar insana əməksevərliklə, fədakarlıqla və bütün digər keyfiyyətlərlə yanaşı, cəmiyyətdə bu və ya digər yeri tutmağa imkan verirlər. Elm adamları istedada, məharətə, xüsusi bacarığa malik olmalıdır… Bu insanlar ən böyük hörmətə layiqdirlər"** – deməsi onun elmə və elm adamlarına olan sonsuz hörmətinin parlaq ifadəsidir. Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi uzun illər ərzində onun fəaliyyətində diqqəti cəlb edən ən mühüm cəhətlərdən biri də məhz ondan ibarət olmuşdur ki, **o bütün məsələlərin həllinə-istər xarici və istərsə də daxili siyasət sahəsində – həmişə elmi cəhətdən əsaslandırmaqla yanaşmağa üstünlük verirdi.** Təsadüfi deyildir ki, Heydər Əliyev hələ 1969-cu ildə respublikamıza rəhbərliyə başladığı ilk günlərdən elmin bütün sahələrinin inkişaf etdirilməsi ilə bağlı məsələlərə xüsusi həssaslıqla yanaşır və daim qayğı göstərirdi. **O,** Azərbaycan KP MK-nın məşhur avqust (1969-cu il) plenumunda respublika elminin inkişafında yaranmış ağır vəziyyətdən narahat olduğunu bildirərək demişdi: **"Elmi idarələrimizin fəaliyyətində hələ ciddi nöqsanlar vardır, Elmlər Akademiyası, bir sıra sahə elm idarələri elmi-texniki tərəqqinin sürətləndirilməsi uğrunda, tamamlanmamış işlərin istehsalata tətbiqi uğrunda mübarizədə kifayət qədər əzmkarlıq göstərmirlər… Dissertasiyaların heç də hamısı lazımi nəzəri səviyyədə yazılmır. Aspiranturada vəziyyət yaxşı deyildir.** Aspirantların xeyli hissəsi namizədlik dissertasiyalarını vaxtında hazırlaya bilmir. Alimlik dərəcəsi alanlar arasında nazirliklərin və digər mərkəzi idarələrin rəhbər işçiləri də az deyildir. Onlar özlərinə tapşırılmış işin zərərinə olaraq dissertasiya yazır, bəzən bunun üçün, hətta öz vəzifələrinin imkanlarından istifadə edirlər… **Elə etmək lazımdır ki, elmə yalnız onu həqiqətən zənginləşdirməyə, irəlilətməyə qabil olan adamlar gəlsinlər.** Ölkəmizdə elmi işçilərin əməyi şərəflidir, onlara ehtiram göstərilir, onlar layiqli nüfuz qazanmışlar… Odur ki, **bizim hər bir tədqiqatçı qarşısında yüksək tələblər qoymağa haqqımız vardır.** Elmi-texniki tərəqqinin sürətləndirilməsi uğrunda yaradıcı mübarizənin önündə getmək, tədqiqat nəticələrinin praktikada, istehsalatda tətbiqi müddətlərinin qısaldılmasına, mütərəqqi texniki yeniliklərin öyrənilməsinə öz

əsərləri, kəşfləri, ideyaları ilə **kömək etmək alimlərin borcudur".** Hələ o vaxtlar öz rəhbərlik bacarığı və qabiliyyəti, fitri istedadı və təşkilatçılığı ilə həm keçmiş İttifaq respublikalarının başçıları və həm də bütövlükdə SSRİ rəhbərləri arasında sayılıb-seçilən, böyük hörmət, nüfuz qazanmış, gərgin əməyi, tələbkarlığı, qətiyyəti və prinsipiallığı sayəsində Azərbaycanı qısa müddətdə nəinki keçmiş İttifaqda, həmçinin bütün dünyada tanıtmağa nail olmuş Heydər Əliyevin alimlərimiz qarşısında qoyduğu proqram xarakterli vəzifələr onlar tərəfindən birmənalı şəkildə qəbul edildi və yüksək vətənpərvərlik hissi ilə yerinə yetirildi. **Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi həm 1970-1982-ci illərdə, həm də 1993-2003-cü illərdə Azərbaycanın sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində olduğu kimi, elmin inkişafını ləngidən, onu geri çəkən neqativ halların da vaxtında aradan qaldırılması üçün bir sıra böyük və mühüm tədbirlərin həyata keçirilməsinin ilk təşəbbüskarı, eləcə də rəhbəri olmuşdur.** Bunu onun Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə respublikamızda elmin inkişafı sahəsində əldə edilmiş nailiyyətlərdən aydın görmək olar. Bu nailiyyətlərin ilk başlanğıcı Azərbaycanın tarixinə ən uğurlu beşillik kimi daxil olmuş 1971-1975-ci illərə təsadüf etmişdir. **Belə ki, həmin illərdə ilk dəfə olaraq Azərbaycan Elmlər Akademiyasında** 170 problem üzrə 540 müxtəlif mövzu və 1000-dən artıq iş yerinə yetirilmişdir ki, onların da 210-u ümumittifaq əhəmiyyətli olub, keçmiş SSRİ EA, Elm və Texnika Komitəsi və s. elmi idarələrlə birlikdə aparılmış, 305-i isə respublika əhəmiyyətli işlər olmuşdur. Yerinə yetirilmiş mövzuların 165-i elmi-texniki, 375-i isə təbiət və ictimai elmlər sahəsindəki problemlərə aid idi. 1971-1975-ci illərdə dövlət planı üzrə nəzərdə tutulmuş 476 mövzu əvəzinə, 540 mövzu müvəffəqiyyətlə yerinə yetirilmişdir. 1970-ci ildə bu mövzuların cəmi 74-ü ümumittifaq əhəmiyyətli olduğu halda, onların sayı 1975-ci ildə 210-a çatmış və ya 2,8 dəfə artmışdır. Bu artım Respublika Elmlər Akademiyasının bütün bölmələrində özünü büruzə vermiş və müxtəlif elm sahələrində bir-birindən fərqli olmuşdur. Məsələn, müqayisə edilən dövrdə yerinə yetirilmiş ümumittifaq əhəmiyyətli mövzuların sayı biologiya elmləri bölməsində 4-dən 21-ə, kimya elmləri bölməsində 9-dan 52-yə çatmış, yaxud müvafiq surətdə 5,2 və 5,8 dəfə artmışdır. Azərbaycan Elmlər Akademiyasının yarandığı 1945-ci ildən 1971-ciilədək olan dövrdə ictimai elmlər bölməsi üzrə bircə dənə də olsun ümumittifaq əhəmiyyətli mövzu işlənmədiyi halda, 1972-ci ildə 2, 1973-cü ildə 40, 1975-ci ildə isə 36 belə mövzu işlənmişdir. **Bu dövrdə respublikamızda elmin inkişaf səviyyəsinin yüksəlməsini belə bir faktdan da aydın görmək olar ki, Elmlər Akademiyasının alimləri onun təşkil olunmasının birinci on ili ərzində (1945-1955-ci illərdə) cəmi 5 mühüm elmi nəticə əldə etmişdirsə, 1971-1975-ci illərdə bu nəticələrin sayı 96-nı ötüb keçmiş və ya 19,2 dəfə artmışdır.**

**1945-1970-ci illəri əhatə edən 25 il ərzində Azərbaycan Elmlər Akademiyası alimlərinin cəmi 170 elmi nəticəsi sovet elminin ən mühüm nailiyyətləri sırasına daxil edilmişdirsə, 1971-1975 – ci illəri əhatə edən cəmi 5 il ərzində onların sayı 274-ə çatmış və ya 1,6 dəfə çoxalmışdır.** Təsadüfi deyildir ki, Heydər Əliyev şəxsən özü bu nailiyyətləri yüksək qiymətləndirərək 1975-ci ilin 24 sentyabrında Azərbaycan Elmlər Akademiyasının 30 illik yubileyində bu elm ocağının **"Xalqlar dostluğu"** ordeni ilə təltif edilməsi münasibətilə keçirilmiş təntənəli ümumrespublika yığıncağında demişdir: **"Qısa müddətdə akademiyamız müasir elmin ən aktual problemlərini həll edən iri mərkəzə çevrilmişdir… Azərbaycan elmi müasir ideyaların, səmərəli axtarışların və məhsuldar tədqiqatların güclü generatoruna çevrilmişdir… Təkcə keçən il sovet elminin mühüm nailiyyətləri sırasında respublikada aparılmış 67 tədqiqat işi qeydə alınmışdır… Bu, Azərbaycan Elmlər Akademiyasının mövcud olduğu bütün müddət ərzində ən yaxşı göstəricidir".** Fəxr edirəm ki, həmin tədqiqatlar arasında mənim 1974-cü ildə **"Elm" nəşriyyatında çapdan çıxmış "Azərbaycan Respublikasında qadın əmək ehtiyatlarından istifadənin sosial-iqtisadi problemləri"** adlı monoqrafiyam da vardır. Bu, Azərbaycandan iqtisadiyyat elmi sahəsindən həmin nailiyyətlər sırasına daxil edilmiş ilk monoqrafiyadır.

**Heydər Əliyev** Azərbaycan alimlərinin xidmətlərini yüksək qiymətləndirərək demişdir: **"Azərbaycan alimləri fəhlələrlə, mühəndislərlə və texniklərlə birlikdə əmək və elm sahəsində əsl hünər göstərmişlər – onlar dünya praktikasında ilk dəfə olaraq açıq dənizdə neft çıxarılmasını təşkil etmişlər…Elmin sürətlə inkişaf etməsi, alimlərin müvəffəqiyyətləri biliklərin bir çox yeni və əsaslı sahələrinin təşəkkülünə güclü təkan vermişlər". Heydər Əliyevin respublika alimlərinin əməyinə verdiyi bu yüksək qiymət onları daha böyük elmi nəticələr əldə etməyə ruhlandırmış və səfərlər etmişdir.** Elə bunun nəticəsi idi ki, 1976-1980-ci illəri əhatə edən 10-cu beşillikdə Azərbaycan Elmlər Akademiyası alimlərinin **1315 elmi nəticəsinin 212-si SSRİ EA tərəfindən sovet elminin ən mühüm nailiyyətləri sırasına daxil edilmiş, ixtira üçün əvvəlki 25 il ərzində olduğundan 8 dəfə çox, yəni 1600 müəlliflik şəhadətnaməsi və dünyanın 34 ölkəsindən 200-dən çox patent alınmışdır.** Bu illər ərzində respublika alimləri Moskvanın, Leninqradın və bir çox başqa şəhərlərin institutları və elmi idarələri ilə 200-dən artıq kompleks elmi-tədqiqat işi və 52 ümumittifaq kompleks elmi-texniki proqramın yerinə yetirilməsində iştirak etmiş, istehsalata 425 min ixtira və səmərələşdirici təkliflər tətbiq etmiş, 6200 yeni növ maşın, cihaz, **avadanlıq və s. yaratmışlar ki, onların da 450-si keçmiş SSRİ-də**

**ilk dəfə bizim respublikada hazırlanmışdı. İstehsalatda tətbiq edilən mexanizm vasitələrinin də 60 faizi 70-80-ci illərin payına düşmüşdür.** 70-ci illərdə və 80-ci illərin əvvəllərində Heydər Əliyevin bütün başqa sahələrdə olduğu kimi, **Azərbaycan elminin inkişafındakı fəaliyyətini dəyərləndirmək, bu fəaliyyətin coğrafi konturlarını müəyyənləşdirmək çox çətindir. Çünki bu fəaliyyətin hər səhifəsi, hər mərhələsi son 50 illik Azərbaycan tarixinin və elminin inkişaf tarixinin mərhələləri ilə üst-üstə düşür, bir çox hallarda isə, hətta indi arxada qalan o tarixin bütövlükdə dərkini şərtləndirir. Heydər Əliyev şəxsiyyətini dəyərləndirmək cəhdində olmaq hardasa tarixə, zamana, gələcəyə qiymət vermək iddiası qədər çətindir.** Dövlət və cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, Azərbaycan elminin, təhsilinin inkişafında da Heydər Əliyevin rolu və qayğısı misilsizdir. 70-ci illərdə və 80-ci illərin əvvəllərində onun rəhbərliyi və qayğısı sayəsində Azərbaycan elmi **öz qızıl dövrünü** yaşamışdır. Heydər Əliyev elmin inkişafına dövlət quruculuğunun ən mühüm bir tərkib hissəsi kimi yanaşırdı. Bu da onun dövlət quruculuğu sahəsindəki nailiyyətlərinin başlıca səbəblərindən biri idi. Təsadüfi deyildir ki, Heydər Əliyevin hələ Azərbaycana rəhbərlik etdiyi ilk dövrlərdə Elmlər Akademiyası alimlərinin fəaliyyəti keçmiş SSRİ dövləti və dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir. **Simvolik haldır ki, elm, iqtisadiyyat və mədəniyyətin inkişafı, yüksək ixtisaslı elmi kadrların hazırlanması sahəsində qazandığı nailiyyətlərə görə Azərbaycan Elmlər Akademiyasının aldığı ilk yüksək mükafat – "Xalqlar dostluğu"** ordeni də 1975-ci ildə Heydər Əliyevin özü tərəfindən təqdim edilmişdir. Bu dövrdə **Azərbaycan Elmlər Akademiyasının nailiyyətləri beynəlxalq miqyasında yüksək qiymətləndirilmiş,** Leursiq yarmarkasında iki böyük qızıl medala, Qahirə beynəlxalq yarmarkasında yüksək mükafata, neçə-neçə görkəmli alimlərimiz isə **dövlət və hökumət mükafatlarına, o cümlədən** 5 nəfər Lenin mükafatına, 14 nəfər SSRİ Dövlət mükafatına layiq görülmüşlər. Fundamental tədqiqatlar sahəsində əldə edilmiş elmi uğurlarına görə akademiklərdən R.İsmayılov, M.Topçubaşov, M.Nağıyev, M.Hüseynov, M.İbrahimov Sosialist Əməyi Qəhrəmanı adı, onlarla alim Respublika Dövlət mükafatı almışlar. **Bütünlükdə götürüldükdə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə (1969-1982-ci illərdə) Azərbaycan alimlərinin 540 elmi nəticəsi SSRİ Elmlər Akademiyası tərəfindən sovet elminin ən mühüm nailiyyətləri sırasına daxil edilmişdir ki, bu da Azərbaycan Elmlər Akademiyasının SSRİ Elmlər Akademiyasının tərkibində olduğu 46 il ərzində (1945-1991-ci illər) SSRİ EA tərəfindən Azərbaycan alimlərinin həmin nailiyyətlər sırasına daxil edilmiş 1100 elmi nəticənin 49 faizini təşkil etmişdir.** Bu uğurlu nəticələrin əldə edilməsinin mühüm səbəblərindən biri də Heydər Əliyevin böyük təşkilatçılıq istedadı, tələbkarlığı və qayğısı nəticəsində Azərbaycan Elmlər Akademiyasında güclü kadr potensialının və texniki arsenalın yaradılması, **ən başlıcası isə həmin dövrdə ölkə başçısı Heydər Əliyevin bilavasitə nəzarəti, diqqəti, qayğısı və tələbkarlığı ilə Azərbaycan Elmlər Akademiyasına, onun elmi bölmələrinə və institutlarına nəinki ölkəmizdə və keçmiş İttifaqda, həmçinin xarici ölkələrdə tanınmış və böyük nüfuz sahibi olan əsl el adamlarının, ziyalıların və şəxsiyyətlərin rəhbərlik etməsi olmuşdur.** Bu da təsadüfi olmayıb Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə **elm sahəsində də yüksək intellektual inkişaf səviyyəsinə malik olan kadrların hazırlanması, seçilməsi, yerləşdirilməsi və tərbiyə edilməsi ilə bağlı bütün məsələlərin onun hazırlayıb** həyata keçirdiyi təsərrüfat-təşkilatçılıq və siyasi tədbirlərin arasında əsas yer tutması və xüsusi dövlət əhəmiyyətli məsələ kimi daim **ulu öndərimizin diqqət mərkəzində olması ilə bağlı idi.** Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk dövrdə (1969-1982-ci illərdə) onun təşəbbüsü və bilavasitə qayğısı ilə keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərində azərbaycanlı oğlan və qızların təhsil alması üçün yaratdığı şərait də bunun bariz nümunəsi idi. Həmin dövrdə ulu öndərimizin böyük qayğısı və diqqəti ilə Moskvanın, Leninqradın və eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı ali elm və təhsil ocağına 3500 azərbaycanlı oğlan və qız göndərilmişdir. Hər il ali təhsil almaqdan ötrü respublikamızdan kənara orta hesabla 800 nəfərdən artıq tələbə göndərilməsi yaxşı ənənə halını almışdı. Müqayisə üçün deyək ki, 1969-cu ildə Azərbaycandan həmin ali məktəblərə cəmi 47 nəfər təhsil almağa göndərilməsi planlaşdırılmış və onların da əksəriyyəti başqa millətlərdən idisə, 70-ci illərin axırlarında həmin məktəblərə göndərilən abituriyentlərin sayı 700-800 nəfər (80-ci illərin əvvəllərində isə hər il 1000-1400 nəfər) təhsil almağa göndərilirdi və onların da çoxunu azərbaycanlılar təşkil edirdilər. 1981-ci ildə Moskva, Leninqrad, Kiyev və başqa şəhərlərdə 244 ixtisas üzrə təhsil alan azərbaycanlı oğlan və qızların sayı 3600 nəfərdən çox idi. Azərbaycan xalqının gələcəyini qabaqcadan görən və düşünən xalqımızın böyük oğlu Heydər Əliyev milli hərbi kadrlar hazırlanmasını da unutmamış və ona da böyük qayğı göstərmişdir. 1972-ci ildən başlayaraq onun təşəbbüsü və qayğısı ilə hər il 300-400 nəfər azərbaycanlı gənc hərbi təhsil almaq üçün keçmiş İttifaqın ən müxtəlif və nüfuzlu ali hərbi məktəblərinə qəbul olmuş və 80-ci illərin əvvəllərində onların sayı 800-1000 nəfərə çatmışdır. Onların da çoxu azərbaycanlı idi. Qeyd edilən dövrdə Azərbaycan Elmlər Akademiyasının müxtəlif elmi-tədqiqat institutlarından respublikadan kənar elm mərkəzlərinə ezam olunan aspirantların, stajor-tədqiqatçıların və məqsədli aspirantların sayı da xeyli artmışdır.

Elmə və təhsilə olan diqqətin nəticəsi idi ki, Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1969-1982-ci illərdə Azərbaycan Elmlər Akademiyasında çalışan işçilərin ümumi sayı 1,9 dəfə artaraq 7892 nəfərdən 15072 nəfərə, o cümlədən elmi işçilərin sayı 45,6 faiz artaraq 3431 nəfərdən 4995 nəfərə, elmlər doktorlarının sayı 1,5 dəfədən çox artaraq 188 nəfərdən 285 nəfərə, elmlər namizədlərinin sayı isə 1,6 dəfədən çox artaraq 1275 nəfərdən 2068 nəfərə çatmışdır. Bu illər respublikamızda aspirantura təhsilinə xüsusi diqqət və qayğı göstərilmiş və bunun nəticəsində əgər 1969-cu ildə Elmlər Akademiyası institutlarının aspiranturasını bitirənlərin cəmi 22 faizi dissertasiya işlərini vaxtında tamamlayıb müdafiə etmiş və ya müdafiəyə təqdim etmişlərsə, bu göstərici artaraq 1982-ci ildə 30,8 faizə yüksəlmişdir. Belə ki, təkcə institutlarında o dövr üçün çox böyük göstərici olan – 159 namizədlik və 20 doktorluq dissertasiyası müdafiə edilmişdir. Bütünlükdə götürüldükdə isə 1970-1982-ci illərdə , respublikamızda 265 elmlər doktoru və 3141 elmlər namizədi hazırlanmışdır. Bu illərdə Respublika Elmlər Akademiyası institutlarının aspiranturasını və ali təhsil ocaqlarını bitirmiş istedadlı və elmə marağı olan gənclərin akademiyamıza işə qəbul edilməsinə də xüsusi diqqət və qayğı artmışdır. Belə ki, əgər 1976-cı ildə Azərbaycan EA institutlarına ali məktəbləri və istehsalatdan ayrılmaqla aspiranturanı bitirmiş 131 nəfər gənc mütəxəssis işə qəbul edilmişdirsə, 1982-ci ildə onların sayı 208 nəfər olmuş və ya 58,7 faiz artmışdır. Qeyd edilən dövrdə ümumiyyətlə götürüldükdə respublikamızın ali məktəblərini müvəffəqiyyətlə bitirmiş oğlan və qızların hər il orta hesabla 200 nəfəri akademiyanın aspiranturasına daxil olmuş və bu institutlarda təhsil alan aspirantların sayı 1982-ci ildə 548 nəfəri, dissertantların sayı isə 380 nəfəri ötüb keçmişdir. Bu illərdə Azərbaycan Elmlər Akademiyasında dörd dəfə (1969-cu, 1970-ci, 1976-cı və 1980-ci illərdə) seçkilər keçirilmiş, nəticədə akademiyanın həqiqi və müxbir üzvlərinin sayı xeyli artmış, onların keyfiyyət tərkibi müxtəlif elm sahələri hesabına əhəmiyyətli dərəcədə dəyişib təkmilləşmişdir. 1982-ci ilin axırına Azərbaycan Elmlər Akademiyasının 57 həqiqi və 75 müxbir üzvü olmuşdur.

Ulu öndərimiz Heydər Əliyevin 1982-ci ilin SSRİ rəhbərliyi tərəfindən irəli çəkilərək Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək vəzifəyə təyin edilməsi ilə əlaqədar olaraq Bakıdan Moskvaya getdiyi və 1987-ci ilin oktyabr ayınadək orada işlədiyi vaxt ərzində də onun diqqətinin daim canından artıq sevdiyi doğma vətəni Azərbaycanın üzərində olması nəticəsində Azərbaycan Elmlər Akademiyası bu illərdə də öz fəaliyyətinin əvvəlki ahəngini qoruyub saxlaya bilmiş, xeyli elmi nailiyyətlər qazanmış və əvvəlki ənənələrini qoruyub saxlaya bilmişdir.

Həmin dövrdə Elmlər Akademiyasında çalışan elmlər doktorlarının sayı 1,8 dəfə artaraq 185 nəfərdən 331 nəfərə, elmlər namizədlərinin sayı isə 10,7 faiz artaraq 2088 nəfərdən 2312 nəfərə çatmış və nəticədə həmin dövrdə Elmlər Akademiyası alimlərinin əldə etdiyi 859 elmi nəticənin 281-i və ya 32,7 faizi SSRİ EA tərəfindən sovet elminin ən mühüm nailiyyətləri sırasına daxil edilmişdir. Ancaq çox təəssüflər olsun ki, Azərbaycan xalqının əbədiyaşar böyük oğlu Heydər Əliyevin xalqımızın düşməni M.Qorbaçov və onun erməni nökərlərinin əli ilə Sov. İKP MK Siyasi Bürosu üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək partiya və hökumət vəzifələrindən istefaya göndərilməsi, bütünlükdə Azərbaycan Respublikasına və onun Elmlər Akademiyasına arxadan vurulan zərbə oldu və əsl faciə də məhz bundan sonra başladı. Heydər Əliyev vəzifəsindən uzaqlaşdırıldıqdan sonra ilk zərbə hədəfi xalqımızın böyük ziyalılar ordusunun toplandığı Azərbaycan Elmlər Akademiyası oldu. 1988-1992-ci illərdə müxtəlif səbəblər üzündən o vaxtkı səriştəsiz respublika rəhbərliyinin Elmlər Akademiyasına və ümumiyyətlə, elmimizin inkişafına münasibəti son dərəcə pisləşmiş və ifrat dərəcədə kəskinləşmişdi. 1992-ci ildə və 1993-cü ilin əvvəlində isə, hətta elə vəziyyət yaranmışdı ki, bəzi üzdəniraq **“demokratlar” hakimiyyətə yiyələndikdən sonra sanki Elmlər Akademiyasından qisas almaq və ümumiyyətlə onu bağlamaq mövqeyi tutmuşdular,** Onların əsas məqsədi Elmlər Akademiyasını və onun çoxminli kollektivini əvvəlcə ölkə ictimaiyyətinin gözündən salmaq və sonra onu tamamilə bağlamaqdan ibarət idi.

Akademiyaya olan bu ögey münasibətin nəticəsi idi ki, vaxtilə ən yüksək əmək haqqı alan alimlər üçün ən aşağı səviyyəli əmək haqqı və rütbə maaşı müəyyən edilmişdi. Elə bu səbəbdən də həmin illərdə və sonrakı dövrdə elmi işçilərin bir çoxu elmdən uzaqlaşaraq ticarət sahəsinə, özəl qurumlara və xarici ölkələrdə işləməyə çıxıb getmişdilər. **Ancaq ağır maddi çatışmazlıqlar və başqa sıxıntılar əsl elm adamlarının, vətən elmini qoruyub saxlamaq arzusunda olan elm fanatlarının iradəsini sındıra bilməmiş və onlar yüksək vətənpərvərlik və ziyalılıq qeyrəti göstərərək öz doğma elm ocaqlarını tərk etməmiş** və bugünədək fədakarlıq göstərərək burada qalıb işləməkdədirlər. 1993-cü ilin 15 iyununda xalqımızın təkidi ilə **Heydər Əliyevin ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıdışı bütünlükdə Azərbaycanın qurtuluşu olduğu kimi, Azərbaycan Elmlər Akademiyasının da qurtuluşu oldu.**

Azərbaycan xalqının milli fikir və mədəniyyətinin çoxəsrlik inkişaf yollarının aşkarlanmasında, onun milli-mənəvi və elmi intibahında, elmin əksər sahələrini əks etdirən sistemli macəraya düşməsində, dünyada

tanınmış elmi məktəblərin və istiqamətlərin formalaşıb inkişaf etməsində misilsiz rol oynamış Azərbaycan Milli Elmlər Akademiyasının 64 illik fəaliyyətinin tam 34 ili ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır və onun ölkəmizə rəhbərlik etdiyi dövrə təsadüf edir. 1997-ci ilin 31 yanvarında Prezident Sarayında Heydər Əliyev Elmlər Akademiyasının rəhbərləri, həqiqi və müxbir üzvləri, aparıcı alimləri ilə görüşündəki çıxışında Elmlər Akademiyasına və onun alimlərinin əməyinə verdiyi yüksək qiymət 90-cı illərin axırlarında bu elm ocağının bağlanması ilə bağlı şayiələrə və narahatçılıqlara son qoydu və burada çalışan əməkdaşların elmimizin sabahına inamını və ümidini artırdı. Həmin görüşdəki çıxışında ulu öndərimiz Heydər Əliyev demişdir: **"XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri ölkəmizdə elmin, təhsilin sürətlə inkişaf etməsidir… Biz bununla fəxr edirik. Bir şeyi bilməlisiniz-Azərbaycan Elmlər Akademiyası respublikamızın ən yüksək elm müəssisəsidir… O, dövlətə məxsusdur. Bu akademiyanın işi və orada işləyənlərin səviyyəsi, şübhəsiz ki, başqalarından yüksəkdir, yüksək də olacaq. Biz bu akademiyanın hörmətini həmişə qoruyub saxlamalıyıq. Heç vaxt imkan verməmək olmaz ki, akademiyamız, yüksək səviyyəli elmi-tədqiqat institutlarımız yaranan cürbəcür özəl elmi müəssisələr** arasında **ərisin, itsin.**

**Buna yol vermək olmaz…"** Təsadüfü deyildir ki, ulu öndərimiz Heydər Əliyevin 15 may 2001-ci il tarixdə imzaladığı "Azərbaycan Milli Elmlər Akademiyası haqqında" fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına "Milli Elmlər Akademiyası" kimi ən yüksək ali dövlət elmi-təşkilati statusu verilməsi və nəhayət AMEA-ya seçkilər keçirilməsi barədə göstəriş verməsi böyük alimlər ordusu tərəfindən bilavasitə dövlət başçımızın Azərbaycan elminə əvəzsiz qayğısının parlaq təzahürü kimi qiymətləndirilmiş və minnətdarlıq hissi ilə qarşılanmışdır. Çox təqdirəlayiq haldır ki, Elmlər Akademiyasının tarixində ilk dəfə olaraq Heydər Əliyevin göstərişi ilə 2001-ci ilin iyun ayında AMEA-ya seçkilər vaxtı akademiyamızın qarşısında qoyulan vəzifələrin uğurla yerinə yetirilməsini təmin etmək və ölkəmizin görkəmli elm adamlarının bu elm ocağının fəaliyyətinə daha geniş surətdə cəlb etmək məqsədilə onun üzvlərinin sayı 141-dən 200-ə (80 həqiqi və 120 müxbir üzvü) qaldırıldı. Ölkə başçısı Heydər Əliyevin respublika elminin inkişafına qayğısının digər bir təzahürü isə 2001-ci il avqustun 7-də AMEA-nın Naxçıvan bölməsinin yaradılması haqqında fərman imzalaması oldu. Blokada şəraitində yaşayan, ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvanda akademiyanın bölməsinin yaradılması həm ölkəmizin sosial-iqtisadi, mədəni inkişafı, elmi tərəqqisi, həm də dövlətçiliyimizin möhkəmləndirilməsi və qorunub saxlanması üçün müstəsna əhəmiyyət kəsb edir. Ölkə başçısının akademiyamızın inkişafına qayğısının digər bir çox mühüm təzahürü isə Azərbaycan elminin gələcək inkişafında yeni üfüqlər açan "Azərbaycan Milli Elmlər Akademiyasının statusu" və "Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi" haqqında 2003-cü il yanvarın 4-də imzaladığı fərmanda öz əksini tapmışdır. Həmin fərmanda deyilir: **"Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən, Azərbaycan Respublikasındakı bütün elmi müəssisələrin elmi-tədqiqat fəaliyyətini əlaqələndirən və istiqamətləndirən, Azərbaycan Respublikasını xarici ölkələrdə elmi və elmi-texniki fəaliyyət sahəsində təmsil edən ali dövlət elmi təşkilatdır".** Ümummilli liderimizin bu tarixi fərmanı mövcud olduğu dövr ərzində akademiyamızın fəaliyyətinə dövlət başçısı tərəfindən verilən ilk belə yüksək qiymət olub. AMEA-nın prezidenti akademik Mahmud Kərimovun sözləri ilə desək: **"Azərbaycan fundamental elminin əldə etdiyi nailiyyətləri, Azərbaycanın sosial-iqtisadi, mədəni-mənəvi təşəkkülündə elmin rolunu, respublikanın, xalqımızın ictimai-siyasi həyatında nüfuzunu və akademik elmin suveren Azərbaycan dövlətinin tərəqqisinin təminatçısı olduğunu bir daha təsdiqləyərək elmimizin salnaməsinə "Heydər Əliyev şəhadətnaməsi" kimi daxil oldu".** Ulu öndərimiz Heydər Əliyevin yolunu layiqincə davam etdirən Azərbaycan Prezidenti **cənab İlham Əliyev** akademiyanın və onun üzvlərinin fəaliyyətinə yüksək qiymət verərək **Milli Elmlər Akademiyasının 60 illiyinə həsr edilmiş təntənəli yığıncaqdakı çıxışında demişdir: "…Azərbaycan alimləri, ziyalıları ölkəmizin, cəmiyyətimizin elitasıdır. Onların dünyagörüşü, mövqeyi, hərəkətləri, fəaliyyəti Azərbaycanın inkişaf dinamikasını, inkişaf perspektivlərini xeyli dərəcədə müəyyən edir. Azərbaycanda çox güclü elmi potensial vardır. Azərbaycan Milli Elmlər Akademiyasının üzvləri çox dəyərli şəxslərdir. Həm elm sahəsində, həm də ictimai həyatda xalqın hörmətini qazanmış insanlardır və biz bu insanlarla fəxr edə bilərik. Mən də fəxr edirəm ki, Azərbaycan Milli Elmlər Akademiyası bu gün çox yüksək səviyyədədir. Çalışmalıyıq ki, gələcəkdə öz işimizlə, əməyimizlə akademiyaya kömək göstərək, onun bütün məsələlərini həll edək və Azərbaycanda elmin gələcək inkişafına nail olaq".** Azərbaycan Milli Elmlər Akademiyasına, onun bütün əməkdaşlarına və həm də ölkəmizdə elmin inkişafına dövlət qayğısının daha bir təzahürü də Azərbaycan Prezidenti İlham Əliyevin 4 may 2009-cu il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"nın və **"Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nın təsdiq edilməsidir. Bu mühüm Dövlət Proqramının məqsədi** respublikanın alim və

mütəxəssislərin təbiət, texnika, humanitar və ictimai elmlərin aparıcı istiqamətlərində fundamental və tətbiqi tədqiqatların inkişafına yönəlmiş yaradıcılıq fəaliyyətlərini birləşdirmək, sosial-iqtisadi və mənəvi inkişafın mühüm problemləri üzrə tədqiqatları təşkil etmək, elm və texnikanın nailiyyətlərinin praktikada istifadə edilməsi üçün tədbirlər görmək, elmi müasir cəmiyyətimizin qurulmasını təmin edən əsas amilə çevirməkdir. **Bu proqramın əsas vəzifələri** isə fundamental elmin, vacib tətbiqi tədqiqatların, araşdırmaların inkişafını və milli istehsalatın yeni texnologiyalara tələbatını ödəmək məqsədi ilə təşkilati və iqtisadi mexanizmlərin yaradılması, elmi, elmi-texnoloji və innovasiya fəaliyyətinin normativ-hüquqi bazasının təkmilləşdirilməsi, elm və texnologiyalar sahəsində yüksək ixtisaslı elmi və mühəndis kadrların hazırlanması sisteminin təkmilləşdirilməsi, dünyadakı müasir meyilləri nəzərə alaraq, elmi tədqiqatların və təcrübi işləmələrin prioritet istiqamətlərinin müəyyənləşdirilməsi, beynəlxalq elmi-texniki əməkdaşlığın inkişaf etdirilməsi, elm və təhsilin inteqrasiyası, milli innovasiya sisteminin formalaşdırılması, elmi işçilərin statusunun, sosial təminatının və gəlirlərinin artırılmasına yönəlmiş qanunvericilik bazasının yaradılmasının həyata keçirilməsinə yönəldilmişdir. Bu vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün hazırda Milli Elmlər Akademiyasının kifayət qədər elmi-texniki kadr potensialı vardır. 2008-ci ilin məlumatlarına əsasən burada çalışan əməkdaşların ümumi sayı 9714 nəfərdir. Onların 4784 nəfərini və ya 49,2 faizini elmi işçilər, elmi işçilərin isə 529 nəfərini elmlər doktorları, 2068 nəfərini isə elmlər namizədləri təşkil edir. Hazırda aspiranturada 608 nəfər aspirant (507 nəfərə yəni, 101 nəfər qiyabi) təhsil alır. AMEA-nın elmi müəssisələrində 1324 dissertant vardır ki, onların da 472-si və ya 35,6 faizini xarici vətəndaşlar təşkil edirlər. Akademiya üzvlərinin 61 nəfəri həqiqi, 113 nəfəri isə müxbir üzvlərdən ibarətdir. Ancaq təəssüf hissi ilə qeyd etmək lazımdır ki, hazırda akademiyanın elmi və elmi-texniki kadr potensialı yaş tərkibinə görə xeyli “qocalmışdır”. İndi onun həqiqi üzvlərinin orta yaşı 75-i, müxbir üzvlərinin orta yaşı isə 67-ni ötüb keçmişdir. Rəsmi statistik məlumatlara əsasən hazırda bütünlükdə götürüldükdə respublikamızda mövcud olan elmlər doktorlarının sayı 1824, elmlər namizədlərinin sayı isə 8765 nəfərdir. Elmlər doktorlarının 271 nəfəri filologiya, 262 nəfəri fizika-riyaziyyat, 237 nəfəri texnika, 188 nəfəri tibb, 161 nəfəri kimya, 120 nəfəri biologiya, 106 nəfəri tarix, 86 nəfəri iqtisadiyyat, 70 nəfəri fəlsəfə, 353 nəfəri isə başqa elm sahələrini təmsil edirlər. İqtisad elmləri namizədlərinin isə müvafiq surətdə 1031 nəfəri filologiya, 1027 nəfəri fizika-riyaziyyat, 1017 nəfəri texnika, 858 nəfəri tibb, 785 nəfəri kimya, 701 nəfəri biologiya, 617 nəfəri iqtisadiyyat, 400 nəfəri tarix, 307 nəfəri, 2021 nəfəri isə başqa elm sahələrində çalışanların payına düşür. Ölkəmizdə mövcud olan elmlər doktorları və elmlər namizədlərinin yaş quruluşuna gəldikdə isə aydın olur ki, hazırda respublikamızdakı elmlər doktorlarının 30,6 faizini 50-59 yaşda, 40,1 faizini 60-69 yaşda, 19,7 faizini isə 70 və yuxarı yaşda olanlar təşkil etdiyi halda, cəmi 8,8 faizini 40-49 yaşda, 0,8 faizini isə 31-39 yaşda olanlar təşkil edirlər. Elmlər namizədlərinə gəldikdə isə onların arasında 50-59 yaşda olanların xüsusi çəkisi 30,2 faiz 60-69 yaşda olanlarınkı 23,7 faizi 70 və yuxarı yaşda olanların xüsusi çəkisi isə 7,1 faiz olduğu halda, bu göstərici 40-49 yaşlılar üzrə 25,2 faiz, 31-39 yaşda olanların xüsusi çəkisi 11,7 faiz, 30 yaşdan kiçik olanların xüsusi çəkisi isə cəmi 2,1 faiz olmuşdur. Bu göstəricilərdən aydın olur ki, ölkəmizdə mövcud olan elmlər doktorlarına nisbətən, elmlər namizədləri arasında cavanlar xeyli çoxdur və bu gələcəkdə elmlər doktorlarının sayının artırılması üçün hələlik xeyli potensial imkanlarımızın olduğunu göstərir. Buna görə də həmin sahəyə dövlət qayğısının daha da artırılması və bu sahələr üzrə qəbul edilmiş Dövlət Proqramında qarşıya qoyulmuş vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi gələcəkdə ölkəmizdə indikinə nisbətən daha güclü və yüksək intellektual inkişaf səviyyəsinə malik olan və dövrün tələblərinə cavab verən elmi və elmi-texniki kadr potensialının yaradılmasına və onların əməyindən ölkəmizin sosial-iqtisadi tərəqqisi üçün daha səmərəli və dolğun istifadə edilməsinə imkan verəcəkdir. İndi bütünlükdə ölkəmizin, ilk növbədə də Milli Elmlər Akademiyası **alimlərinin qarşısında duran başlıca vəzifə möhtərəm Prezidentimiz İlham Əliyevin ətrafında daha sıx birləşərək onun rəhbərliyi altında Azərbaycan dövlətinin iqtisadi və hərbi qüdrətini** daha da möhkəmləndirmək üçün bütün imkanları səfərbərliyə alıb elmimizin səviyyəsini və onun dünyaya inteqrasiyasını təmin etməkdən ibarətdir. Yalnız belə olan halda biz ulu öndərimiz Heydər Əliyevin vəsiyyətlərini yerinə yetirməkdə möhtərəm Prezidentimiz İlham Əliyevə, onun həyata keçirdiyi siyasətin davamlılığının təmin edilməsinə öz töhfəmizi vermiş olarıq.

**“Respublika“**.- 2009.- 12 iyul.- №150.- S.1-2

## HEYDƏR ƏLİYEV VƏ MÜASİR AZƏRBAYCAN

**Əli ƏHMƏDOV,**
Yeni Azərbaycan Partiyası sədrinin müavini

***Böyük şəxsiyyətlər yaşamasaydı, bəşəriyyətin tarixi təsəvvürəgəlməz dərəcədə kasıb və maraqsız olardı. Tarix özünün yaratdığı dahi insanların ideyalarının və əməllərinin üzərində qərar tutur. Xalqların və ölkələrin inkişafının əsasında şəxsiyyətlərin və ideyaların dayanması inancı ictimai düşüncəyə dərindən hakim kəsilmiş həqiqətlərdən sayılır. İnkişafın şərəfli yolunu keçmiş və ya bu yolda olan xalqların nümunəsi (tarixi) deyilənin ən bariz ifadəsi haqqına sahibdir. Tarixin bütün dövrlərində inkişafı yaradan fundamental əsas rolunda dahi şəxsiyyətlər, liderlər çıxış edib və bu gün də çıxış etməkdədirlər. Bunlardan kənarda əhəmiyyətli inkişaf nümunəsinə tarixi təcrübədə hələ ki, rast gəlmək mümkün deyil. Azərbaycan xalqı özünü bütünlüklə xoşbəxt saya bilər ki, onun XX əsrin son 30 ilinə və XXI əsrin əvvəlinə təsadüf edən tarixi və taleyi ümummilli lider Heydər Əliyev şəxsiyyəti və onun əzəmətli ideyaları üzərində qərar tutur. Heydər Əliyevin ölkəmizin rəhbəri seçilməsinin 40 illiyi ərəfəsində müasir tariximizin bu həqiqəti Azərbaycanın indiki əzəmətli inkişafı fonunda daha aydın, daha bariz şəkildə qavranılmaqdadır.***

### Azərbaycanın müasir intibahının memarı

Öz tarixinin qızıl əsrini keçmişdə axtarmağa adət etmiş bir çox xalqlardan fərqli olaraq, Azərbaycanın həqiqi intibahının müasirləri olduğumuz dövrə təsadüf etdiyi ictimai düşüncənin birmənalı qəbul etdiyi həqiqətlərdəndir. Azərbaycan Respublikası adını daşıyan müstəqil dövlətin yaranmasından tutmuş, onun indiki heyrətamiz inkişaf dinamikasına qədər özündə milli dirçəlişi əks etdirən unikal tarixi sosial-iqtisadi və milli-mənəvi hadisələr məhz yaşadığımız zamanda cərəyan etməkdədir. Heç şübhəsiz, bütün bunların üzərinə vurulmuş müasirlik möhürü Heydər Əliyevin adı və titanik fəaliyyəti ilə bilavasitə əlaqədardır.

Heydər Əliyevin Azərbaycanın siyasi səhnəsinin birinci şəxsi kimi fəaliyyətə başlaması və onun ölkə həyatına gətirdiyi əzəmətli inkişaf meyilləri dahi şəxsiyyətlərin tarixin gedişində həlledici rol oynadıqlarını sübuta yetirmək üçün ən dəyərli nümunələrdən sayıla bilər. Bu nümunə həm də ona görə xüsusi çəkiyə malikdir ki, Heydər Əliyev özünün siyasi taleyində sözügedən sosioloji qanunauyğunluğu iki dəfə sübuta yetirməli olub. Azərbaycan tarixinin Heydər Əliyevin aktiv siyasi fəaliyyəti dövrünə təsadüf edən iki böhranlı mərhələsində xalqın və ölkənin xilası və inkişafının əsasının qoyulması bilavasitə onun möhtəşəm tarixi xidməti kimi qəbul edilir və dəyərləndirilir. Bu mənada, Heydər Əliyevin timsalında tarixdə şəxsiyyətin rolu özünün ən bariz ifadəsini tapmış olur.

XX əsrin 70-ci illərindən etibarən Azərbaycanın siyasi həyatı və bütünlükdə cəmiyyətimiz Heydər Əliyevin titanik səyləri sayəsində yeni impuls və inkişaf parametrləri kəsb edərək əslində özünün yeni mərhələsinə qədəm qoydu. O zamandan başlayan böyük tarixi mərhələdə Heydər Əliyev ideyaları həyatımızın başlıca gerçəkliyi, inkişafımızın təməl daşı olaraq qalmaqdadır. 2003-cü və 2008-ci illərdə ölkədə keçirilən prezident seçkilərində Heydər Əliyevin siyasi varisi İlham Əliyevin inamlı qələbəsi, hazırda həyata keçirilən siyasətin xalq tərəfindən qətiyyətlə dəstəklənməsi onu göstərir ki, tariximizin Heydər Əliyev mərhələsi davam edir və bundan sonra da hələ uzun müddət davam etmək resurslarına malikdir.

Azərbaycan tarixinin Heydər Əliyev mərhələsi haqqında qənaətin formalaşması təkcə onun Azərbaycana uzun müddət rəhbərlik etməsinə deyil, bəlkə də daha çox bu rəhbərliyin zəngin məzmuna malik olmasına əsaslanır. Tam qətiyyətlə və cəsarətlə demək olar ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr onun tarixinin xüsusi, ən intensiv inkişaf mərhələsini təşkil edir. Bu mənada həmin dövrü tariximizin nəinki surətli və hərtərəfli yüksəliş illəri, bəlkə də intibahı adlandırmaq daha dəqiq qiymətləndirmə nümunəsi olardı. Məhz haqqında söhbət gedən zaman kəsiyində Azərbaycan malik olduğu böyük intellektual və insani potensialı, təbii resursları – bir sözlə, milli gücü cəmləyib ölkənin qətiyyətli tərəqqisinin qüdrətli amilinə çevirmək imkanı qazanmış və bununla da öz tarixinin keyfiyyətcə yeni bir dövrünə qədəm qoymuşdur. Bu, heç şübhəsiz, qədim və zəngin tariximizə müasir Azərbaycan cəmiyyətinin yaradılması mərhələsi kimi daxil olmuşdur.

Böyük tarixi şəxsiyyətlərin rolunu adekvat şəkildə qiymətləndirmək asan olmur. Görünür, bu həm də onunla əlaqədardır ki, dünyamiqyaslı tarixi şəxsiyyətlərin yerinə yetirdiyi missiya əksər hallarda xronoloji çərçivələrə sığmır, inkişafın sonrakı gedişinə əhəmiyyətli dərəcədə təsir göstərir. Belə tarixi şəxsiyyətlər bir qayda olaraq lideri olduğu xalqın ictimai həyatının gələcək inkişaf konsepsiyasını və strategiyasını müəyyən etməklə onun sonrakı taleyinin də təyin edilməsi məsuliyyətini müəyyən mənada öz üzərinə götürür. Bir sözlə, onlar tarixin elə özünü yaradır. Tarixi yaradan şəxsiyyətə isə qiymət vermək elə tarixin özünə qiymət vermək qədər məsuliyyət tələb edir.

Tariximizin Heydər Əliyev dövrü müasir Azərbaycan cəmiyyətinin formalaşması vəzifələrinin uğurla və ardıcıl olaraq yerinə yetirilməsi ilə seçilir. Məhz Heydər Əliyevin rəhbərliyi illərində Azərbaycan böyük və sürətli inkişaf mərhələsinə qədəm qoyaraq yeni cəmiyyət parametrləri kəsb etməyə müyəssər olmuşdur. Həmin dövrdə ölkənin inkişafı sadəcə prosesin adi axarının təzahürü formasında deyil, bir qayda olaraq, əhəmiyyətli keyfiyyət dəyişiklikləri ilə müşayiət olunan sıçrayış xarakterli yeniləşmə kimi özünü bürüzə vermişdir. 1970-1980-ci illərdə Azərbaycan cəmiyyətinin həyatında baş verən sürətli tərəqqi sayəsində ölkənin mahiyyət etibarilə yeni keyfiyyət halına, Azərbaycan tarixinin isə yeni inkişaf mərhələsinə keçməsi inkaredilməz reallıqdır. Azərbaycanın ikinci dəfə yeni keyfiyyət halına və deməli, yeni tarixi mərhələyə daxil olması da artıq başqa siyasi reallıqlar çərçivəsində, 1993-cü ildə Heydər Əliyevin qayıdışı ilə birbaşa əlaqədardır.

Heydər Əliyevin ölkənin müasir tarixində xidməti və həyata keçirdiyi missiyası sistemində özünü bürüzə verən əsas cəhətlərdən biri onun Azərbaycanın intibahının əsasını qoymasıdır. Həm də artıq qeyd edildiyi kimi, bu, sadəcə, ənənəvi həyat irəliləyişinin ardıcıllığı sistemindən irəli gələn adi inkişaf yox, keyfiyyət dəyişikliyinə gətirib çıxarmağa qadir olan sürətli yüksəlişdir. Əslində, bu, Heydər Əliyevin tarixi missiyasının təntənəsi, müasir Azərbaycanın yaradılması deməkdir.

**Müstəqil Azərbaycan dövlətinin qurucusu**

Toplumun ali kamillik göstəricisi dövlətdə birləşmək, liderin müstəsna tarixi xidməti dövlət yaratmaqdır. Hər bir xalqın tarixində onun müstəqil dövlətini yaratmaq kimi əzəmətli vəzifəni öz üzərinə götürmüş ümummilli liderlər olub.

Dövlət müstəqilliyini uzun illər itirmiş Azərbaycanın XX əsrin sonlarında istiqlalına qovuşduqdan sonra milli dövlətçiliyini bərpa edərək müstəqil dövlətini yaratmaq missiyasını tarixin hökmü ilə Heydər Əliyev yerinə yetirməli oldu. Xalqımızın indiki nəsilləri müstəqil dövlət quruculuğu sahəsində qazanılan müstəsna uğurlara görə Heydər Əliyevə minnətdar olduğunu gizlətmir. Müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əliyev haqlı olaraq azərbaycanlıların milli qürur və iftixar mənbəyinə çevrilmiş, ümummilli lider adını qazanmışdır.

Heydər Əliyevin xalqımızın qəlbində əsrlər boyu yaşamış müstəqillik ideyaları ilə qovuşması, heç şübhəsiz, əhəmiyyətli təkamül mərhələsi keçərək XX əsrin son onilliklərində Azərbaycanın milli yüksəlişinin məfkurə əsası kimi özünü büruzə vermişdir. Bunun əyani misalını sovet rejiminin ən sərt çağlarında Azərbaycana rəhbərlik edən Heydər Əliyevin milli ruhun inkişafına təkan verən cəsarətli addımlarında görmək o qədər çətin deyil. Əvvəla, Heydər Əliyev ona xas olan müdrikliklə dərk edirdi ki, siyasi müstəqillikdən məhrum olmuş xalqın milli ruhunu dirçəltməyin ən etibarlı yolu onun iqtisadiyyatının inkişafından keçir. Məhz bunun sayəsində xalqın özünə inamı arta bilər ki, bu da öz növbəsində milli ruhu yüksəltmək, milli oyanışı gücləndirmək və millətin özünü ifadə etmək arzusunu daha dərindən alovlandırmaq qüdrətinə malikdir. Bu mənada, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə respublikanın sıçrayışlı iqtisadi yüksəlişinin xalqımızın müstəqillik məfkurəsinin möhkəmlənməsində əvəzsiz rol oynadığını ayrıca vurğulamamaq ən azından ədalətsizlik olardı. Digər tərəfdən, unudulmamalıdır ki, Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi illərində respublikanın inkişafı universal səciyyə daşımış, yüksəliş həyatın heç bir sahəsindən yan keçməmişdir. Başqa sözlə, iqtisadi inkişafla yanaşı, milli ruhu yüksəltməyə birbaşa təkan verən mədəni və mənəvi intibah meyilləri də aydınca müşahidə edilmişdir ki, bu da atılan addımların milli – məfkurə məna tutumuna malik olduğuna heç bir şübhə yeri qoymur. İqtisadi inkişafın formalaşdırdığı milli özünəinam hissləri mədəni-mənəvi yüksəlişin yaratdığı milli özünüdərk və özünüifadə istəkləri ilə tamamlanaraq əslində müstəqillik məfkurəsinin gündən-günə möhkəmlənən nüvəsini əmələ gətirirdi. 1977-ci ilin Konstitusiyasında SSRİ-nin əyalətlərindən biri olan Azərbaycanda Azərbaycan dilinin dövlət dili elan edilməsi yuxarıda irəli sürülən tezisi təsdiqləmək gücündə ola biləcək çoxsaylı dəlillərin ən bariz nümunəsi sayıla bilər.

Heydər Əliyevin 1982-ci ildə SSRİ kimi nəhəng dövlətin ali rəhbərliyində təmsil olunmasının milli qürur və iftixar hissi yaradan amil kimi milli məfkurəvi rol oynamasını da diqqətdən kənarda saxlamaq düzgün olmazdı. Xalqın liderinin onun hüdudlarından kənarda tanınması və etiraf olunması qədər məfkurəyə və milli düşüncəyə emosional səviyyədə müsbət təsir göstərən digər amil təsəvvür etmək çətindir. Ümummilli lider Heydər Əliyevin dünyanın iki super dövlətindən birinin rəhbərlərindən olması gerçəkliyini dərk etmək özü-özlüyündə milli-birləşdirici amil kimi məfkurə daşıyıcısı rolunu yerinə yetirirdi.

Sadalanan tezisləri cəm edərək tam əminliklə söyləmək mümkündür ki, bir yandan Heydər Əliyevin XX əsrin son onilliklərində Azərbaycanın intibahı yolundakı xidmətləri, digər tərəfdən isə milli lider kimi birmənalı olaraq bütün xalq tərəfindən qəbul edilməsi milli azadlıq məfkurəsinin yeni mərhələdə formalaşmasında həlledici rol oynamış oldu. Məhz bunun sayəsində XX əsrin 80-ci illərinin sonunda Azərbaycanda azadlıq hərəkatı SSRİ-nin digər respublikaları ilə müqayisədə daha böyük vüsət ala bilmişdi. Azadlıq hərəkatının çox

müxtəlif – istər rəsmi, istər qeyri-rəsmi səviyyələrdə, artıq o zaman istefada olan Heydər Əliyevin adı ilə əlaqələndirilməsi də öz növbəsində irəli sürdüyümüz fikrin təsdiqinə xidmət edən parametrlərə sahib olduğunu göstərir. Onu da vurğulamağa dəyər ki, Heydər Əliyev fenomenini geniş vüsət almış azadlıq hərəkatından ayırmaq cəhdləri nəticə etibarı ilə bu təşəbbüs tərəfdarlarında təsəlli yaradacaq sonluğa gətirib çıxarmadı. Etiraf etmək lazımdır ki, Heydər Əliyevin adı və şəxsiyyəti azadlıq hərəkatını həvəsə gətirən və ona əlavə güc verən fenomen kimi qətiyyətlə qəbul olunurdu.

Heydər Əliyev fenomeninə ehtiyac Azərbaycan müstəqil dövlət kimi özünü elan etdikdən sonra ilk aylarda daha aydın hiss olunmaqda idi. Müstəqil Azərbaycanda yaşanan siyasi qeyri-sabitlik, tez-tez təkrarlanan hakimiyyət dəyişiklikləri, iqtisadi tənəzzülün dərinləşməsi, xaos və anarxiyanın idarəçilik sistemini bütünlüklə iflic etməsi, yaranmış daxili böhrandan faydalanan erməni təcavüzünün getdikcə daha çox Azərbaycan torpaqlarını əhatə etməsi, ölkənin xaricdən təcrid olunması və əslində, təklənməsi Heydər Əliyev fenomeninə qayıdışı qaçılmaz edirdi. Getdikcə daha artıq insan bu ideyanın təsiri altına düşür və dərk edirdi ki, zamanında müstəqillik məfkurəsinin möhkəmlənməsinə müstəsna töfvələr verən Heydər Əliyev qazanılmış müstəqilliyin müstəqil dövlətə çevrilməsinin yeganə təminatı ola bilər. Məhz onun sayəsində müstəqillik ideyaları həqiqi gerçəkliyə çevrilə, qazanılmış dövlət müstəqilliyi geriyə dönməzlik imunitetinə sahib çıxa bilər. Qətiyyətlə iddia etmək olar ki, XX əsrin 90-cı illərinin başlıca siyasi gerçəkliyi olan bu həqiqətin dərk edilməsi çağdaş tariximizə əslində müstəqillik məfkurəsində şəxsiyyət fenomeninin təntənəsi, sözün həqiqi mənasında, Heydər Əliyevə qayıdış və əlbəttə, Heydər Əliyevin tarixi qayıdışının təməlinin qoyulması kimi daxil olub. Azərbaycan müstəqillik məfkurəsini şəxsiyyət fenomeni ilə tamamlamaq üçün Heydər Əliyevə qayıdışa, qazanılmış müstəqilliyi geriyədönməz milli sərvətə – müstəqil dövlətə çevirmək üçün isə Heydər Əliyevin qayıdışına möhtac idi.

Azərbaycanın müstəqilliyin bərpası ərəfəsində və ilk illərində ciddi təhlükələr məngənəsində yaşamağa məhkum olması, son həddə çatmış siyasi qeyri-sabitlik, sürətli iqtisadi tənəzzül, erməni təcavüzünün coğrafiyasının genişlənməsi və bütün bunların qaçılmaz nəticəsi kimi əhalini bürüyən bədbinlik hisslərinin getdikcə güclənməsi cəmiyyətin dövlət qurucusu anlamında başadüşülən güclü şəxsiyyətə ehtiyacını artıran ən möhtəşəm arqumentlər idi. Ötən əsrin 90-cı illərinin ictimai ovqatının dövlət qurucusu olan güclü lider ideyası üzərində kökləndiyini sübuta yetirmək üçün kifayət qədər dəlillərin gətirilməsi mümkündür. Müdrik, təcrübəli və qüdrətli şəxsiyyət olmadan ölkəni əhatə etmiş total böhranın aradan qaldırıla biləcəyinə heç kimdə ümid qalmamışdı. Bir növ, güclü şəxsiyyət Azərbaycanın nicatı kimi qavranılırdı və bu mənada qüdrətli lider ideyası o dövrün siyasi gerçəkliyinin əsas aparıcı qüvvəsinə çevrilmişdi.

Azərbaycanın müasir tarixinin ən böhranlı mərhələsi hesab edilən XX əsrin 90-cı illərinin əvvəllərində ictimai düşüncə səviyyəsində güclü lider ideyasının birmənalı şəkildə Heydər Əliyev şəxsiyyəti ilə əlaqələndirilməsi o dövrün gerçəkliyinin digər, yuxarıda qeyd olunan məfkurə prinsipindən daha populyar ideyası olaraq qavranılırdı. Başqa cür ifadə etməli olsaq, etiraf etmək lazımdır ki, haqqında söhbət açdığımız güclü şəxsiyyət ideyası əslində ümidlərin Heydər Əliyevlə bağlanmasına ideoloji baza yaratmaq məqsədi güdürdü. Ən başlıcası isə bu, bütünlüklə cəmiyyəti, onun hər bir təbəqəsini həm əhatə edən, həm də birləşdirən məfkurə rolunu oynayırdı.

Heydər Əliyevin möhtəşəm tarixi qayıdışı zərurətinin nəzəri-ideoloji əsası özünün ifadəsini məhz yuxarıda haqqında söhbət açdığımız güclü şəxsiyyət ideyasında tapır. Heç şübhə yoxdur ki, Azərbaycanın XX əsr tarixinin ən ecazkar hadisələrindən olan məşhur tarixi qayıdış ümummilli ictimai düşüncə səviyyəsində dərk edilən zərurət olduğundan, Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilk növbədə xilaskarlıq missiyası ilə yüklənmişdir. Xalq Heydər Əliyevin qayıdışına xilaskarlıq missiyası kimi yanaşdığından, Heydər Əliyevə də xilaskar kimi baxırdı.

Azərbaycanın müasir tarixinin real təhlükələrin altında, sözün həqiqi mənasında, əzildiyi bir vaxtda ictimai düşüncədə xilaskar ümummilli lider Heydər Əliyev obrazının formalaşmasının təsadüfi olmadığını əsaslandırmaq bəlkə də artıqdır. Əslində, Heydər Əliyevin məlum tarixi proseslərin müasiri olması faktı kifayət edirdi ki, xalq öz taleyinin xilas edilməsini ona həvalə etsin.

eyd etməyə dəyər ki, Heydər Əliyev ən təhlükəli anlarında Azərbaycan xalqının öz taleyini ona etibar etməkdə yanılmadığını möhtəşəm qayıdışın elə ilk aylarında sübuta yetirə bildi. Qısa bir zaman kəsiyində ölkəni bir neçə il ərzində taqətdən salan hərc-mərcliyə qətiyyətlə son qoyuldu, sabitlik və əmin-amanlıq təmin edildi, hərtərfli böhran cilovlandı, erməni təcavüzünün Azərbaycanın dərinliklərinə irəliləməsinin qarşısı alındı.

Heydər Əliyevin xilaskarlıq missiyasının fəlsəfəsinə xas olan fərqləndirici cəhətlərdən birinin haqqında da fikir mübadiləsi aparılmasına ehtiyac duyulmaqdadır. Heydər Əliyev şəxsiyyətinin əzəməti və miqyası onun tarixi qayıdışının mənasını yalnız xilaskarlıq missiyası ilə məhdudlaşdırmağı qeyri-mümkün edir. Əslində, o, Azərbaycanın düçar olduğu vəziyyətdən xilasını geniş planda ölkədə nəinki yeni siyasi, həm də iqtisadi və

mənəvi situasiyanın yaradılmasında görürdü. Başqa sözlə, Heydər Əliyev özünün xilaskarlıq missiyası dedikdə elə genişmiqyaslı, sistemli və ardıcıl həyata keçirilən islahatları başa düşürdü ki, bunları həyata keçirərək Azərbaycanın müstəqilliyinin əbədi, sarsılmaz və dönməz olduğunu, müstəqil Azərbaycan dövlətinin qurulduğunu bəyan etmək mümkün olsun. Buna görə müstəqil Azərbaycan dövləti quruculuğunun əsasını təşkil edən çoxsahəli və ardıcıl layihələrin təntənəsi həm də Heydər Əliyevin xilaskarlıq missiyasının gerçəkləşməsi kimi qavranılır. Yaradılan dayanıqlı siyasi sabitliyin ardınca iqtisadiyyatda tənəzzülün cilovlanması, maliyyə nizam-intizamının yaradılması, aqrar islahatların həyata keçirilməsi, yeni iqtisadi sistemə keçidi təmin edən cəsarətli addımların atılması həm də Azərbaycanın müstəqil dövlətçiliyini möhkəmləndirən əsasların yaradılması demək idi.

Ölkəmizə yönəlmiş müxtəlif təzyiq və təhlükələrin dəf edilərək birdəfəlik neytrallaşmasında Heydər Əliyev dühasının məhsulu olan neft strategiyasının müstəsna rol oynadığını xüsusi qeyd etməyə ehtiyac var. Məhz onun sayəsində Azərbaycan uğurlu tarazlaşmış xarici siyasət yeritmək manevri qazana bilər, iqtisadiyyatını dirçəltmək, genişmiqyaslı sosial layihələri həyata keçirmək üçün güclü dəstək əldə edə bilərdi. Heç şübhəsiz ki, ölkəmizin regionda lider dövlətə çevrilməsi, dünyanın ən dinamik iqtisadiyyatına malik olan ölkə adını şərəflə dörd il dalbadal daşıması, Azərbaycanın beynəlxalq aləmdə rolunun və əhəmiyyətinin hissolunan dərəcədə artması və digər çoxsaylı uğurlarımız Heydər Əliyevin neft strategiyası ilə birbaşa bağlıdır. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində və xalqımızın taleyində neft strategiyasının nə qədər böyük əhəmiyyət daşıdığı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yeni Azərbaycan Partiyasının III qurultayındakı nitqində lakonik şəkildə belə ifadə etmişdir: "Heydər Əliyevin neft strategiyasının icrası nəticəsində ölkəmizə milyardlarla dollar xarici sərmayə gətirilibdir. Əgər 1994-cü ildə, o çətin şəraitdə "Əsrin müqaviləsi" imzalanmasaydı, ondan sonrakı dövr ərzində bütün infrastruktur layihələri həyata keçirilməsəydi, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinə başlanmasaydı, bu gün Azərbaycanda iqtisadi inkişafdan, ümumiyyətlə, söhbət gedə bilməzdi. Azərbaycanın bir çox sahəsi məhz "Əsrin müqaviləsi"ndən sonra inkişaf etməyə başladı. Bu müqavilə bir növ bütün iqtisadi inkişaf üçün möhkəm təkan verdi. Azərbaycanın qarşısında duran sosial məsələlər daha da uğurla həll olunmağa başladı".

Heydər Əliyevin xilaskarlıq missiyasının həyata keçirilməsində müstəqil dövlət quruculuğunda istifadə olunan qüdrətli vasitələr sırasında azərbaycançılıq məfkurəsi, milli-mənəvi dəyərlərin gücləndirilməsi həlledici rol oynayır. Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkənin başının üstünü almış təhlükələr və total böhran separatçı meyillərlə müşayiət olunmaqla daha da dərinləşərək əslində Azərbaycanı real parçalanmaq həddinə çatdırmışdı. Ölkə üçün üzləşdiyi təhdidlərin ən təhlükəlisi olan separatizmin dəf edilməsi ifrat dərəcədə zəifləmiş mərkəzi hakimiyyət şəraitində yalnız ümumi birləşdirici ideya əsasında mümkün idi. Və təbiidir ki, belə bir ideya yalnız Heydər Əliyevin zəkasının nəticəsi kimi meydana gələ bilərdi. Azərbaycançılıq məfkurəsinin Heydər Əliyevin tarixi qayıdışının Azərbaycan gerçəkliyinə gətirdiyi ən dəyərli və gərəkli ideya olduğunu vurğulamaq əslində bir daha onun böyüklüyünü etiraf etməkdir. Azərbaycandakı dayanıqlı sabitlik, milli birlik və həmrəylik sözün həqiqi mənasında həm də Heydər Əliyevin azərbaycançılıq baxışlarına minnətdar olmalıdır.

Beləliklə, Heydər Əliyevin 1993-cü ilin həyəcanlı anlarında möhtəşəm qayıdışından başlanan xilaskarlıq missiyası qüdrətli, müstəqilliyinin əbədi, dönməz və sarsılmaz olması heç kimdə şübhə doğurmayan Azərbaycan dövlətinin qurulması ilə nəticələndi. Heydər Əliyevin adı tarixə müstəqil Azərbaycan dövlətinin qurucusu kimi daxil oldu, müstəqil Azərbaycan dövləti isə Heydər Əliyevin şah əsəri olaraq qəbul edildi. Müstəqil Azərbaycan bu gün Heydər Əliyev siyasətinə istinad edərək qətiyyətlə irəliləyir, gücünü və qüdrətini durmadan artırır, dahi azərbaycanlıya məxsus ideyaların həmişəyaşar olduğunu bir daha təsdiqləyir.

**Heydər Əliyev ideyaları yeni mərhələdə**

Özünün birmənalı təsdiqini tapmış sosioloji qanunauyğunluğa görə şəxsiyyətin böyüklük parametrləri içərisində həlledici əhəmiyyət kəsb edən cəhətlərdən biri onun nəinki öz dövrünün ictimai-siyasi proseslərinə təsir etmək imkanı, habelə sonrakı proseslərə də təsir göstərmək qüdrətli hesab olunur. Bu mənada, Heydər Əliyevin şəxsiyyəti, əzəmətli zaman məfhumu prizmasından yanaşıldıqda daha nəhəng və əzəmətli görünür.

Azərbaycan xalqının Heydər Əliyev irsinə sadiqliyi, onun siyasətinin alternativsizliyini birmənalı şəkildə qəbul etməsi dahi şəxsiyyətin ideyalarının həmişəyaşarlığına bilavasitə dəlalət edir. Ölkəmizin son illərdə Heydər Əliyevin müəyyənləşdirdiyi yolla gedərək fövqəladə uğurlar qazanması faktı da onun şəxsiyyətinin nəhəngliyini əyani şəkildə təsdiqləyir. Bütün bunlar Heydər Əliyev irsinin, Heydər Əliyev ideyalarının ölkəmizin müasir inkişafının ideya əsasları rolunu uğurla oynamasına sübutdur.

Heydər Əliyev strategiyasının müasir inkişafın ideya əsası rolunda çıxış etməsi hər şeydən əvvəl onun universal mahiyyətindən irəli gəlir söyləsək, yəqin ki, səhvə yol vermərik. İkinci bir tərəfdən, bu strategiya ölkəmizdə tarixən formalaşmış dəyərlər sisteminə söykəndiyindən böyük perspektiv üçün nəzərdə tutulub.

Azərbaycanın davamlı inkişafının Heydər Əliyev konsepsiyası ideyanın praktik fəaliyyətə transformasiya edərək insanların davranışını stimullaşdırmaq qüdrətinə malik olan dəyərlərin tam dəstini özündə ifadə edir. Həmin dəyərlər sistemi ümummilli ideyanın təmin edilməsi ilə yanaşı, hər bir fərdin şəxsi idealının həyata keçirilməsini ehtiva edən prinsip və vəzifələri üzvi şəkildə əks etdirir. Məhz bu amil onun ictimai cazibədarlığını və səmərəli fəaliyyət əmsalını şərtləndirən səbəblərdən biri keyfiyyətində çıxış edir. İnkaredilməz həqiqətdir ki, ictimai ideya fərdi qavranma və qəbuledilmə mexanizmi vasitəsilə ictimai və ya ümummilli davranış faktoruna çevrilir. Tarixi təcrübə fərdi maraqlar yükünü daşımaq imkanından məhrum edilmiş ideya sisteminin uğursuzluğa məhkum edildiyini dəfələrlə sübuta yetirmişdir. Bu baxımdan, artıq söylənilən tezisi başqa şəkildə ifadə edərək təsdiqləmək mümkündür ki, Azərbaycanın davamlı inkişaf strategiyasının əsasını təşkil edən Heydər Əliyevin baxışları sisteminin gücü milli ideyanın kifayət qədər fərdi maraq ünsürləri ilə yüklənməsindədir. Məhz bunun sayəsində hər bir fərd sözügedən ideya və baxışlar sistemində özünün ictimai dəyərlər dərəcəsinə yüksəldilmiş istək və arzularının ifadəsini tapır.

Heydər Əliyevin zəngin irsinə əsaslanan inkişaf strategiyasının təhlili onun üç fundamental başlanğıca istinad etdiyini göstərir. Bunlar güclü dövlət, səmərəli iqtisadiyyat və azad insandır. Hər üç başlanğıcın qarşılıqlı ahəngdar fəaliyyəti ölkənin yüksək inkişafına, hərtərəfli tərəqqisinə xidmət edən əzəmətli vasitəyə çevrilmək gücündədir.

Ölkənin və onun əhalisinin təhlükəsiz, əmin-amanlıq şəraitində və rifah halında yaşaması sosial-siyasi və milli-əxlaqi mühitin, birgə yaşayış norma və qaydalarının mövcüdluğunu özündə ehtiva edir, bu da özü-özlüyündə güclü dövlət anlamını verir. Heydər Əliyevin qurduğu və onun layiqli davamçısı Prezident İlham Əliyevin daha da kamilləşməsi üçün yorulmadan fəaliyyət göstərdiyi müstəqil, demokratik, hüquqi, dünyəvi, sosial Azərbaycan dövləti məhz bu parametrlərə malik olub ölkənin gələcək və sürətli inkişafının mühüm başlanğıcını təşkil edir. Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra təxirəsalınmaz tədbirlər kimi ölkədə sabitliyi, əmin-amanlığı, dövlət intizamını təmin etmək, qanunçuluğu və hüququn aliliyini gözləmək sahəsində atdığı addımların məntiqi bununla izah oluna bilər.

Zəngin irsin, hərtərəfli düşünülmüş strategiyanın həyatın gerçəkliyinə çevrilməsi daha bir vacib faktordan bilavasitə asılıdır. Bu, heç şübhəsiz, lider faktorudur. Məhz yeni dövrün yetişdirdiyi lider ideyanın bütün əzəmətini dərk etmək və onu yeni şəraitə maksimum uyğun olaraq gerçəyə çevrilmək qüdrətinə sahib olur. Heydər Əliyevdən sonrakı dövrün belə bir fenomenal liderinin İlham Əliyev olduğu artıq özünü qəti şəkildə təsdiqləyə bilmişdir.

İlham Əliyevin müasir Azərbaycan siyasətində qüdrətli bir fenomen olaraq meydana çıxması mahiyyət etibarı ilə Heydər Əliyev siyasətinin məntiqi davamı və yeni keyfiyyət halında inkişaf etdirilməsidir. Heydər Əliyevin müstəqil Azərbaycan quruculuğunda əks olunan strategiyası müasir şəraitdə Prezident İlham Əliyevin fəaliyyətində zəngin və qüdrətli Azərbaycanın yaradılması vəzifəsi kimi ortaya çıxır.

Zəngin və qüdrətli Azərbaycan ölkənin tarixinin nəinki yeni mərhələsi, bəlkə daha çox cəmiyyətin tamamilə fərqli keyfiyyət halı kimi qəbul olunur. Bu özünə daha çox inanan, potensialına daha çox güvənən, nəinki öz hüdudları daxilində, habelə regionda və beynəlxalq aləmdə özünü ifadə etməyi bacaran Azərbaycan deməkdir. Zəngin və qüdrətli Azərbaycan habelə özünü hər cür təhlükələrdən müdafiə etməyə qadir, torpaqlarımıza göz dikənlərə layiqli cavab verməyi bacaran Azərbaycandır. Ölkəmizin bu keyfiyyətlərinin tarixi gerçəkliyə çevrildiyini görməmək mümkün deyil. Azərbaycanın gündən-günə artan iqtisadi qüdrəti siyasi və hərbi gücə transformasiya etməkdədir. Deməli, zəngin və qüdrətli Azərbaycanın qəti şəkildə formalaşmasının mühüm şərtlərindən olan ərazi bütövlüyünün bərpa edilməsi üçün beynəlxalq siyasi nüfuz və hərbi güc amili özünü daha aydın şəkildə büruzə verməkdədir. Azərbaycanın iqtisadiyyatı regionun ən güclü iqtisadiyyatıdır. Azərbaycanın büdcəsi region dövlətlərinin üst-üstə büdcələrindən artıqdır. Heç zaman militarizmə meyilli olmayan Azərbaycan indi özünün müstəsna olaraq təhlükəsizliyini və ərazi bütövlüyünü təmin etmək üçün regionda ən güclü orduya sahibdir.

Beləliklə, Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan dövləti indi güclü Azərbaycan dövləti kimi tanıtma nişanına sahib ola bilmişdir. Vaxtilə hər birimizin qürur mənbəyi olan müstəqil Azərbaycan indi bütün azərbaycanlıların iftixarına çevrilmiş güclü Azərbaycandır.

Qırx il bundan əvvəl başlayan yol davam edir. Azərbaycan bu yolla irəliləyərək yüksəlir, inkişafın surəti ilə dünyanı heyrətə salır. Belə inkişaf tempi Azərbaycana yad deyil. Ötən əsrin 70-ci illərində də ölkəmiz bu cür vüsəti yaşamışdı. Onda Heydər Əliyevin rəhbərliyi altında. İndi ümummilli liderin ideyaları əsasında dahi rəhbərin varisi İlham Əliyevin rəhbərliyi altında.

Hamımız bu yolla gedirik. Bu yolda işıq var, həqiqət var, inkişaf var.

**“Azərbaycan“**.-2009.-14 iyul.-№151.-S.4

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ƏDLİYYƏSİ

**Faiq QURBANOV,**
Ədliyyə Nazirliyi İnsan hüquqları və
ictimaiyyətlə əlaqələr idarəsinin rəisi,
Baş ədliyyə müşaviri

Ümummilli liderimiz, milli dövlətçiliyimizin memarı və qurucusu Heydər Əliyevin həyatı, siyasi və idarəçilik fəaliyyəti tariximizdə müstəsna yer tutur. Xalqımız tarix boyu əxz etdiyi dövlətçilik ənənələrini, milli dəyərləri, nailiyyətləri, ali keyfiyyətləri məhz Heydər Əliyev epoxasında təkmilləşdirərək dayanıqlı müstəqil Azərbaycan dövlətini qurmuş, millətin özünü idarə etmək bacarığını yüksək səviyyədə nümayiş etdirmişdir.

Çoxəsrlik dövlətçilik ənənəsi olan Azərbaycan ədliyyəsinin xalqımızın müstəqillik uğrunda mübarizəsini, onun şanlı keçmişini əks etdirən zəngin tarixi vardır. Azərbaycan Respublikasının ədliyyə tarixinin əп şərəfli anları 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaranması ilə başlanmışdır. Şərqin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyətində ədliyyə fəaliyyətinə xüsusi əhəmiyyət verilərək məhz 1918-ci il may ayının 28-də – Azərbaycan Demokratik Respublikasının elan edildiyi gün Ədliyyə Nazirliyi də təsis edilmiş, noyabr ayının 22-də isə nazirliyin əsasnaməsi təsdiq edilmişdir. Bu dövrdə kadrların hazırlanması məqsədilə hüquq kursları təsis edilmiş, qısa müddət ərzində Azərbaycan məhkəmə palatası yaradılmış, yeni hüquq sisteminin təşkili ilə bağlı bir çox əhəmiyyətli qərarlar qəbul olunmuş, ölkənin ədliyyə sisteminin formalaşdırılması və inkişafı naminə xeyli iş görülmüşdür.

Lakin 1920-ci il sovet işğalından sonra Ədliyyə Nazirliyi dəfələrlə ləğv edilərək yenidən yaradılmış, Ədliyyə Komissarlığı ilə əvəz edilmiş, xeyli müddət prokurorluq, Ali Məhkəmə və digər orqanlar ədliyyə orqanlarının vəzifəsini yerinə yetirmişlər. Ədliyyə sisteminin stabil funksiya və struktura malik olmaması onun inkişafına ciddi əngəllər törətmişdir.

Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə yaradılması, ümumiyyətlə, nazirliyin dövlət strukturu kimi təşəkkül tapması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 1970-ci ildə Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə təsis edilərək, ədliyyə işinin təkmilləşdirilməsi, onun gələcək inkişafı üçün əlverişli şərait yaradılması ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərliyə gəldiyi dövrə təsadüf edir. Azərbaycanın keçmiş sovetlər birliyinə daxil olan məhz bu dövrdə islahatların aparılması böyük cəsarət və əzmkarlıq tələb edirdi. 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis edilmiş və Azərbaycan ədliyyə tarixində yeni mərhələ başlanmışdır. 1972-ci ildə Ədliyyə Nazirliyinin əsasnaməsi təsdiq edilmiş, ədliyyə sisteminin yeniləşən fəaliyyətini tənzimləyən mühüm normativ sənədlər qəbul edilmiş, ən əsası isə ədliyyə işinin gələcək inkişafı üçün hərtərəfli zəmin yaranmışdır.

Ədliyyə Nazirliyinin Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonrakı inkişafı da məhz görkəmli dövbt xadimi və ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır.

1991-1993–cü illərdə Azərbaycan müstəqillik qazandıqdan sonra hakimiyyətdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi maneəyə çevrilməklə yanaşı, daxili böhranın, vətəndaş itaətsizliyinin, xaos və anarxiyanın yaranmasına rəvac vermiş, qanunçuluğun və hüquq qaydalarının təminatı, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun, ən nəhayət, ictimai asayişin qorunması sahəsində əsaslı problemlər yaratmışdır. Belə bir böhranlı və ağır şəraitdə Azərbaycanı sürətlə fəlakətə sürükləyən məkrli planların qarşısını almağa, düçar olduğu fəlakətlərdən qurtarmağa qadir yeganə şəxsiyyət məhz ulu öndərimiz Heydər Əliyev olmuşdur. Ümummilli liderimizin həyata keçirdiyi xilaskarlıq missiyası nəticəsində milli dövlətçiliyimizin itirilməsi təhlükəsi aradan qaldırılmış, cəbhədə atəşkəsə nail olunmuş, daxili sabitlik bərqərar edilərək, ölkəni bürümüş hərtərəfli tənəzzülün qarşısı alınmışdır. Azərbaycan xalqı 1993-cü ildə ümummilli lider Heydər Əliyevə etimad göstərərək onu özünün layiqli rəhbəri seçmiş, müdrik liderinin rəhbərliyi altında davamlı və dönməz inkişaf yoluna qədəm qoymuşdur.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ictimai münasibətlərin xarakterinin dəyişməsi, hüquqi dövlət quruculuğu həyatımızın bütün sahələrində olduğu kimi, hüquqi sahədə də demokratik islahatların həyata keçirilməsini zəruri etmişdir. Ümummilli liderimiz Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilmiş ilk milli Konstitusiyamızda məhkəmə hakimiyyətinin, xüsusilə hakimlərin müstəqilliyinin təminatı barədə müddəalar əks edilmiş, demokratik quruluşun və hüquqi dövlətin təməli qoyularaq hüquqi islahatların aparılması şərtlənmişdir. Konstitusiyada hakimiyyət bölgüsü prinsipi dəqiq əksini tapmış, zamanın tələbi ilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə fundamental hüquqi zəmin yaradılmışdır.

Uğurla həyata keçirilən məhkəmə-hüquq islahatı nəticəsində ölkəmizdə qısa müddət ərzində demokratik prinsiplərə və beynəlxalq tələblərə uyğun mütərəqqi qanun və məcəllələr qəbul edilmiş, əvvəlkindən köklü surətdə fərqlənən məhkəmə sistemi yaradılmışdır.

Demokratik prinsiplərin, humanist dəyərlərin və insan hüquqlarının ön plana çəkildiyi müasir zamanda hər bir ölkənin dövlət və ictimai həyatında ədliyyə orqanları mühüm yer tutur.

İslahatlar çərçivəsində ədliyyə işinin müasir tələblər səviyyəsinə qaldırılması üçün əsaslı tədbirlər görülmüş, Ədliyyə Nazirliyinin üzərinə yeni mühüm vəzifələr qoyulmuş, nazirlik dövlətin hüquq siyasətini həyata keçirən əsas orqanlardan birinə çevrilmişdir. Görülmüş tədbirlər nəticəsində Azərbaycan ədliyyəsi beynəlxalq norma və prinsiplərə uyğun olan inkişaf yoluna qədəm qoymuş, onun çoxşaxəli fəaliyyətinin tənzimlənməsi üçün bir çox normativ sənədlər qəbul edilmişdir. Qanunun aliliyinin təmin edilməsi məqsədilə 2000-ci ildə Azərbaycanda üçpilləli yeni məhkəmə sistemi yaradılaraq fəaliyyətə başlamış, ölkəmizdə ilk dəfə olaraq test üsulu ilə şəffaf prosedurlarla yeni hakim korpusu formalaşdırılaraq, onların yüksək statusu müəyyən olunmuşdur. Respublikada Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması, İnsan Hüquqları üzrə müvəkkil institutunun yaradılması demokratik inkişaf yolunda əldə olunan mühüm nailiyyətlərdəndir.

Ümummilli liderimiz Heydər Əliyev yenidən Azərbaycana hakimiyyətə qayıdandan sonra dövlətin cəza siyasətində də islahatlara başlanıldı və ilk olaraq cəzaçəkmə müəssisələri Ədliyyə Nazirliyinin tabeçiliyinə verildi. Ölkəmizdə insan hüquqları sahəsində atılan mühüm addımlardan biri də Şərqdə ilk dəfə olaraq ölüm cəzasının ləğv edilməsi oldu. 1993-cü ildən ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə icrasına moratorium qoyulmuş bu müstəsna cəza növü 1998-ci ildə ləğv olundu. Ümummilli liderimiz Heydər Əliyevin apardığı humanist siyasət nəticəsində 1995-ci ildən əvvəllər unudulmuş əfv və amnistiya təsisatları bərpa edildi. Ulu öndər 1995-2003 – cü illərdə 32 əfv fərmanı imzalamışdır.

Ölkəmizdə insan hüquqlarının daha etibarlı müdafiəsinə xidmət edən məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi üzrə məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Ulu öndər Heydər Əliyevin imzaladığı 1998-ci il 22 fevral tarixli “İnsan hüquq və azadlıqlarının müdafiəsinə dair” Fərmanı və “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı”nın təsdiq olunması barədə 1998-ci il 18 iyun tarixli Sərəncamı mühüm qanunvericilik və institusional islahatlara təkan vermiş, ölkəmizdə insan hüquqlarının təmini sahəsində effektiv müdafiə mexanizmlərinin formalaşdırılmasını şərtləndirmişdir.

Ədliyyə işçilərində mənəvi stimul yaradılması və tarixi irsin qorunması məqsədilə ümummilli lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi gün – 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü kimi müəyyən olunmuşdur.

Ulu öndər ədliyyə sistemində fəaliyyətin mövcud tələblər səviyyəsində qurulması üçün məqsədyönlü xidmətləri hazırda öz gözəl bəhrələrini verməkdədir. Ölkədə həyata keçirilən effektiv hüquqi islahatlar kursunu uğurla davam etdirərək dövrün tələblərinə uyğun yeni çalarlarla zənginləşdirən Prezidentimiz cənab İlham Əliyev qısa dövr ərzində imzaladığı məqsədyönlü fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin etmiş və həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olmuşdur.

Möhtərəm Prezidentimizin ədliyyə sisteminə göstərdiyi diqqət və qayğının əyani təzahürü olaraq ədliyyə fəaliyyətinin normativ-hüquqi əsasları təkmilləşdirilmiş, 2006-cı il aprel ayının 18-də ölkə Prezidenti tərəfindən nazirliyin yeni Əsasnaməsi təsdiq olunaraq ona hüquq mühafizə orqanı statusu verilmiş, həmin il may ayında isə “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Qanun qəbul edilmişdir. Dövlət başçısı tərəfindən “Ədliyyə orqanlarının inkişafı haqqında” 17 avqust 2006-cı ildə Fərman imzalanması və nazirliyin yeni strukturunun təsdiq edilməsi Azərbaycan ədliyyəsinin inkişafında yeni mərhələ olmuşdur.

Prezident İlham Əliyevin tapşırıqlarına əsasən məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə kompleks tədbirlər həyata keçirilmiş, məhkəmə hakimiyyətinin özünüidarə orqanı Məhkəmə Hüquq Şurası formalaşdırılmış, müstəqil qurum olan Hakimlərin Seçki Komitəsi yaradılmış, ilk dəfə olaraq hakimlərin fəaliyyətinin qiymətləndirilməsi qaydası müəyyən olunmuşdur.

“Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013 – cü illər üçün Dövlət Proqramı” milli ədliyyə sistemi ilə yanaşı, həm də məhkəmə orqanlarının müasirləşdirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində indiyədək həyata keçirilmiş məqsədyönlü və ardıcıl tədbirlər sisteminin uğurlu davamıdır. Dövlət proqramının imzalanması ədliyyə orqanlarının və məhkəmələrin dinamik inkişafının təmin edilməsi, yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, normativ-hüquqi və maddi-texniki təminatın yaxşılaşdırılması, kadr potensialının gücləndirilməsi məqsədi daşıyır.

Aparılan islahatlar göstərir ki, Azərbaycanda qanunun aliliyinin təminatı, ədliyyə orqanlarının dövlət idarəçilik mexanizmində nüfuzlu təsisat kimi təşəkkül tapması, o cümlədən, ədalət mühakiməsinin həyata

keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkili, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsi və digər konseptual məsələlərin həlli dövlət başçısının xüsusi diqqət mərkəzindədir. Dövlət başçısının inamla həyata keçirdiyi ədliyyə və məhkəmə islahatları ölkəmizdə qanunçuluğun, hüquq qaydalarının daha da möhkəmlənməsinə, habelə Azərbaycanın beynəlxalq arenadakı demokratik imicinin yüksəlməsinə xidmət edir.

May ayının 10-u xalqımızın xilaskar oğlu, ulu öndərimiz Heydər Əliyevin anadan olmasının 86-cı ildönümüdür. Qədirbilən Azərbaycan xalqı Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin doğum gününü onsuz qeyd edirlər. Respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları Fəxri Xiyabana gələrək, ulu öndər Heydər Əliyevin məzarı önünə əklillər, tər güllər qoyur, onun əziz xatirəsini dərin ehtiramla yad edirlər. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 86-cı ildönümü ədliyyə orqanlarında da geniş qeyd edilir, silsilə tədbirlər təşkil olunur, dəyirmi masalar və digər kütləvi tədbirlər keçirilir. Bu gün tam əsasla deyə bilərik ki, ulu öndərimizin ümummilli və ümumbəşəri ideyaları daim xalqımızın, millətimizin yoluna mayak kimi işıq saçacaq və müstəqil dövlətimizin daha da güclənməsində böyük rol oynayacaqdır.

**“Qanunçuluq“**.-2009.-№5.-S.40-42

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA DEMOKRATİK DÖVLƏT QURUCULUĞU

**İradə HÜSEYNOVA,**
təhsil nazirinin müavini, tarix elmləri doktoru,
professor, YAP Siyasi Şurasının üzvü

Liderlik institutu hər zaman siyasətşünas və filosofların əsas müzakirə mövzularından olmuş, bu fenomeni dərindən öyrənməyə çalışmış böyük mütəfəkkirlər bir-birindən maraqlı, dəyərli nəzəriyyələr yaratmışlar. Geniş fikir müxtəlifliyinə rəğmən, ümumi qənaət bundan ibarətdir ki, iqtisadi potensialından asılı olmayaraq, hər bir dövlətin hərtərəfli inkişafı milli lider amili ilə bilavasitə bağlıdır. Liderlik anlayışının başlıca tərkib hissəsini şəraiti dəqiq qiymətləndirmək, qarşıda duran vəzifələrin həlli yollarını düzgün müəyyənləşdirmək, hansısa qərarın yerinə yetirilməsi naminə insanların zəkasına və enerjisinə pozitiv təsir göstərmək, onları konkret ideya, fikir və məqsəd ətrafında səfərbər etmək, idarə olunanların liderin qəbul etdiyi qərarları, verdiyi göstərişləri öyrənməsinə və fəal müdafiə etməsinə nail olmaq kimi mühüm keyfiyyətlər təşkil edir. Liderlik bir tərəfdən liderin cəlbedici ideyalar irəli sürməsini, insanlara fəal və ciddi təsir göstərməklə onları idarə etməsini, digər tərəfdənsə liderə inanmağı, ona tabe olmağı, insanların onun ardınca getməyə hazır olmasını, qəbul etdiyi qərarlarda bilavasitə iştirakını əks etdirir.

Hər bir xalqın milli azadlığa və dövlət müstəqilliyinə qovuşması üçün üç mühüm şərt tarixi şans, milli iradə və liderə malik olmasıdır. Liderlik funksiyasını öz şəxsi nüfuzu, yüksək təşkilatçılığı, fəallığı, təşəbbüskarlığı, yaradıcılığı və enerjisi ilə fərqlənən, xüsusi idarəçilik və xarizmatik keyfiyyətlərinə malik olan, xalqın böyük hörmət və sevgisini qazanan dahi insanlar yerinə yetirirlər. Bu statusa yiyələnmiş şəxslərin fəaliyyətinin universallığı onunla şərtlənir ki, insan qruplarının, təşkilatların və hərəkatların birgə fəaliyyətinin bütün növləri liderə ehtiyac duyur. Siyasi lider isə sadəcə, siyasi proseslərə rəhbərlik edən, cəmiyyətin idarə olunması funksiyalarını həyata keçirən, siyasi təşkilatları və hərəkatları öz ardınca aparan şəxs deyil. O, hər şeydən əvvəl, hadisələrin gedişini dəyişdirməyə, siyasi prosesləri istiqamətləndirməyə qadir olan şəxsiyyətdir. Görkəmli şəxsiyyətlər özləri situasiya yaradır və onu lazımi istiqamətə yönəltməklə qarşıya qoyduqları məqsədləri reallaşdırmağa nail olurlar. Bacarıqsızlar isə bu situasiyaların əsirinə çevrilir, hadisələrin axarına düşüb üzürlər.

Tarixən hər bir xalqın tarixi müəyyən mənada ona rəhbərlik etmiş böyük siyasi liderlərin, parlaq şəxsiyyətlərin çoxşaxəli fəaliyyətində təsəccümünü tapmışdır. XX əsrdə Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyət, dünyanın görkəmli dövlət xadimlərindən biri, ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında yalnız insanlarımızın istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini məhz ötən əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla əsrin sonlarına doğru müstəqil Azərbaycan dövləti kimi əzəmətli bir reallığa qovuşdurmuş, qurub-yaratdığı bu dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanın müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir.

Azərbaycan dövlətçiliyinin müasir tarixinə öz adını əbədi həkk etmiş bu nadir tarixi şəxsiyyətin, fenomenal siyasi xadimin ölkəmizə rəhbərlik etdiyi illər intibah, milli tərəqqi, milli oyanış, nəhayət, müstəqil dövlət quruculuğu dövrü kimi qəbul edilir. Heydər Əliyevin siyasi və dövlət fəaliyyətinin ən böyük nəticəsi quruculuğuna bilavasitə rəhbərlik etdiyi və xalqımıza bəxş etdiyi mükəmməl milli dövlət, müstəqil Azərbaycan Respublikasıdır.

Böyük strateq Heydər Əliyev hələ hakimiyyətinin birinci mərhələsində milli təfəkkürümüzü repressiya xofundan, təzyiq və təhdidlərdən xilas etmiş, milli şüurun yüksəlişinə xidmət edən ardıcıl tədbirlər həyata keçirmişdir. Müdrik rəhbərin ölkəmizə birinci rəhbərliyi dövrünə qədər daha çox sovet tarixşünaslığının təmsilçiləri kimi yeni quruluşun ideologiyasının formalaşdırılması və bu ideologiyanın kütlələrə təlqini işilə məşğul olan Azərbaycan tarixçiləri keçmişimizin araşdırılmasına başlayaraq xalqımızın şanlı tarixinin qələmə alınması istiqamətində ilk addımlarını atmağa başladılar. Yaranmış əlverişli imkanlardan istifadə edərək, Atabəylər dövlətinin tarixini yazan akademik Ziya Bünyadov 70-ci illərin ortalarında dövlət mükafatına layiq görüldü. Azərbaycanın ədəbi dil normalarını kitablar halında sabitləşdirən dilçi alimlərimiz dövlət mükafatları ilə təltif edildilər. Bakı bütün dünyada Türkologiya elminin mərkəzinə çevrildi, millətin siyasi baxımdan təşkilatlanmasının, özgürlüyünə nail olmasının din və dil faktorlarından asılılığını nəzərə alan Heydər Əliyev hakimiyyətinin ilk mərhələsində dil amilini ən əhəmiyyətli məsələlərdən biri kimi gündəmə gətirdi.

Ümummilli liderin Azərbaycanda rəhbərliyə gəlişi, eyni zamanda cəmiyyətdə hüquqi münasibətlər sisteminin xarakterində pozitiv dəyişikliklərə səbəb olmuş, cəmiyyətdə hüquqi təfəkkürün, hüquqi düşüncə tərzinin, hüquqi mədəniyyətin, ümumilikdə, hüquq elminin inkişafının keyfiyyətcə yeni mərhələsi başlanmışdır.

Həmin illərdə respublika rəhbərliyi səviyyəsində keçirilən müxtəlif tədbirlər də məhz bu məqsədlərin real həyatda tətbiqi məqsədini daşımışdır. Azərbaycan KP MK-nın 1970-ci il dekabrın 4-də qəbul etdiyi "Zəhmətkeşlərin hüquqi tərbiyəsini yaxşılaşdırmaq tədbirləri haqqında" qərarı da məhz Heydər Əliyevin təşəbbüsü, ideya müəllifliyi və səyləri ilə hazırlanaraq qəbul olunmuşdur. Bu qərarda orta və ali ixtisas məktəblərində hüququn əsaslarının tədrisi və öyrənilməsi işini yaxşılaşdırmaq, tədris müəssisələri vasitəsilə hüquqi biliklərin təbliğini gücləndirmək, qanunvericiliyin ən aktual məsələlərinin gənc nəslə öyrədilməsinə və izah olunmasına, hüquq qaydalarının möhkəmləndirilməsinə və dövlət mülkiyyətinin qorunmasına yönəldilən kütləvi-siyasi tədbirlərin keçirilməsi sahəsində tədbirlər planı işləyib hazırlamaq tələbi irəli sürülürdü. Məzmunundan da göründüyü kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə qəbul olunmuş bu qərar o dövrün sosial eybəcərliklərinə, acı ictimai-mənəvi gerçəkliklərinə, o zamankı partiya sovet təsərrüfatı elitasının volyuntarizminə özbaşınalığına, hüquqi nihilizm və inzibati amirlik sisteminin digər tipik təzahür formalarına qarşı kəskin etiraz və ağıllı müqavimət demək idi. O zaman bu qərarın SSRİ miqyasında böyük əks-sədası olmuş, onun müddəalarının həyata keçirilməsi məqsədilə kompleks tədbirlər hazırlanaraq həyata keçirilmişdi.

Ötən əsrin 70-80 – ci illərindən respublikamızda milli müstəqilliyə etibarlı zəmin formalaşdıran sosial-iqtisadi, hüquqi və mənəvi intellektual mühit formalaşdıran ulu öndər Heydər Əliyev xalqımızın məhz bu möhkəm bünövrə üzərində azadlıq, istiqlaliyyət və müstəqillik ideallarına qovuşmasını təmin etmişdir. Bu günün zirvəsindən baxdıqda, o illərdə Heydər Əliyevin xalqının hüquqlarını qoruyan, haqqı nahaqqa verməyən, milliləşdirmə siyasəti aparmaqla həm də ziyalı elitasını sərt təqiblərdən qoruyan fenomenal lider keyfiyyətləri daha qabarıq sezilir. Azərbaycan xalqı dahi liderinin rəhbərliyi altında yüksək iradə sərgiləməklə, milli yaddaşını, mənəvi, əxlaqi dəyərlərini, tarixi dövlətçilik ənənələrini qorumaq əzmini toparlaya bilmiş, dövlət müstəqilliyi üçün zəruri potensial formalaşdırmışdır. Keçmiş imperiya daxilində hansı qlobal proseslərin getdiyini daha dərindən müşahidə etmək imkanına malik olan Heydər Əliyev Azərbaycanın nə vaxtsa müstəqillik əldə edəcəyini öncədən görmüş, bu prosesi sürətləndirən mühüm addımlar atmışdır.

Qeyd etmək lazımdır ki, Heydər Əliyevi rəhbər kimi başqalarından fərqləndirən mühüm bir keyfiyyət ondan ibarətdir ki, onun dövlətçilik və siyasi fəaliyyəti bir-birinə zidd olan iki müxtəlif ictimai-siyasi sistemin qovuşuğundan keçmiş və bunların imkanlarından bacarıqla istifadə edib hər bir dövrün ictimai-siyasi tələblərinə uyğun olaraq özünün bütün varlığını Azərbaycan Respublikasının yüksəlişinə, xalqın mənəvi-mədəni inkişafına həsr etmiş və ölkəmizin hərtərəfli tərəqqisini təmin etmişdir.

Ümummilli lider 1982-ci ildən sonra SSRİ-ni idarə edən aparıcı simalardan biri kimi Kremldə çalışdığı dövrlərdə də Azərbaycanın gələcək müstəqilliyinə xidmət edən bir sıra addımlar atmış, respublikamıza qarşı ayrı-seçkilik siyasətinə qarşı çıxmış, ermənilərin məkrli torpaq ilhaqı siyasətinə qarşı barışmaz mövqe tutmuş, Qorbaçov rejimini kəskin tənqid etmişdir. Məhz bu qətiyyətli və prinsipial mövqeyinə görə 1987-ci ildə SSRİ KP MK Siyasi Bürosunun üzvlüyündən uzaqlaşdırılan ulu öndər Heydər Əliyev sonrakı mərhələdə də Azərbaycanla bağlı siyasi proseslərə biganə qalmamış, 90-cı illərin əvvəlində Naxçıvana qayıdaraq zamanın diktəsi ilə siyasi proseslərdə fəal iştirak etmiş, Azərbaycanın dövlət müstəqilliyinə real zəmin formalaşdırmışdır. 1991-ci ilin 18 oktyabrında qüdrətli dövlət xadimi Heydər Əliyevin də imza atdığı "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya aktı" ilə ölkəmizin istiqlaliyyəti bütün dünyaya bəyan edilmişdir.

1991-ci ilin oktyabrından 1993-cü ilin iyununadək ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər, eyni zamanda ölkənin müstəqilliyi üçün real təhdidlərin meydana çıxması, vətəndaş qarşıdurması meyillərinin güclənməsi, hüquqi nihilizmin, xaos və anarxiya mühitinin dərinləşməsi göstərdi ki, ölkəni yaranmış acınacaqlı vəziyyətdən yalnız Heydər Əliyev kimi müdrik və uzaqgörən şəxsiyyət xilas edə bilər. Ümummilli lider 1993-cü ildə xalqın təkidli çağırışına cavab verərək hakimiyyət sükanına keçmiş, ölkədə ictimai-siyasi sabitliyi, qanunçuluğu bərpa etmiş, eyni zamanda insan hüquq və azadlıqlarının təminatına xidmət edən hüquqi islahatların müəllifi olmuşdur.

Ulu öndər Heydər Əliyevin siyasi uzaqgörənliyinin, prinsipiallığının və siyasi iradə nümayişinin məntiqi nəticəsi olaraq 1994-cü ildə "Əsrin müqaviləsi"nin əfsanədən reallığa çevrilməsi ölkənin bütün strateji əhəmiyyətli sahələrinin inkişafına təkan verməklə, Azərbaycanda hüquqi islahatların yeni mərhələdə aparılmasına da geniş imkanlar açmışdır. Böyük strateqin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır. Konstitusiyada hakimiyyət bölgüsü prinsipləri dəqiq əksini tapmış, zamanın tələbilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə fundamental hüquqi zəmin yaradılmışdır.

Konstitusiyada əksini tapmış müddəaların üçdə ikisinin sırf insan hüquqları ilə bağlı olması da ulu öndərimizin insan hüquqlarına necə böyük həssaslıqla yanaşmasının bariz təcəssümüdür.

Azərbaycanın demokratik dövlət olmasını şərtləndirən əsas meyarlardan biri də xalqın hakimiyyətin əsas mənbəyini təşkil etməsi və idarəçilik mandatının yalnız xalqa malik olmasıdır. Öz fəaliyyətində hüququ rəhbər tutmayan, əsas insan hüquq və azadlıqlarını təmin etməyən, qanunun aliliyinə söykənməyən, ictimai həyatın bütün sahələrini qanunlar əsasında idarə etməyən sistem hüquqi ola bilməz. Bu mənada, Azərbaycanda hakimiyyətin əsas mənbəyi kimi xalqı və əsas məqsədi kimi onun maraqlarının təmin edilməsini qəbul etməsi, eyni zamanda hüquqi dövlətin mövcudluğunu şərtləndirir. Respublikamızda dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.

Konstitusiyanın 151-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, beynəlxalq müqavilələr tətbiq edilir. Bu maddə Azərbaycan Konstitusiyasının liberallığını və demokratikliyini bir daha sübuta yetirməklə yanaşı, həm də son 14 ildə ölkədə milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılmasına yaxşı imkanlar açmışdır. Əsas Qanunumuzda əksini tapmış insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Komissiyasının yaradılması və əfvetmə institutunun bərpası da ulu öndər Heydər Əliyevin necə böyük qəlb və mənəviyyat sahibi olduğunu, şəxsiyyətcə böyüklüyünü təsdiqləyir. Bu humanizmin nəticəsidir ki, respublikamızda əfv fərmanlarının imzalanması, məhkumların bağışlanması müsbət ənənəyə çevrilmişdir. Heydər Əliyevin 1993-cü ildən tətbiqinə moratorium qoyduğu ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk ölkə olmuşdur. Müqayisə üçün bildirək ki, o vaxt hətta Avropa Şurasının üzvü olan bir sıra dövlətlər analoji addımı hələ atmamışdılar. Yüksək humanizmin və insanpərvərlik örnəyinin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmiş, 2001-ci ilin 25 yanvarında müstəqil respublikamız Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edilmişdir. Təşkilatla səmərəli əməkdaşlıq Azərbaycanın milli qanunvericiliyinin Avropa standartlarına uyğunlaşdırılmasına, mütərəqqi məhkəmə-hüquq islahatlarının aparılmasına ciddi təkan vermişdir.

Ümummilli lider Heydər Əliyevi böyük şəxsiyyət və insan kimi xarakterizə edən mühüm keyfiyyətlərdən biri də onun yeritdiyi siyasətin yüksək humanizm və insanpərvərlik prinsiplərinə əsaslanması olmuşdur. 1995-2003 – cü illər ərzində Heydər Əliyev tərəfindən 32 əfv fərmanı imzalanmış, bu fərmanlar 3091 məhkuma şamil edilmişdir. Ulu öndərin qanunvericilik təşəbbüsü əsasında Milli Məclis 1996-2003 – ci illərdə 8 amnistiya haqqında qanun imzalamış, 31 mindən artıq məhkum azadlığa buraxılmış və yaxud cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılmışdır. Bu addımlar ciddi tərbiyəvi əhəmiyyət daşımaqla, cəmiyyətdə paк mənəvi dəyərlər, humanizm hissi aşılamış, ölkədə cinayətkarlığın dinamikasının azalmasını təmin etmişdir.

1998-ci ilin 22 fevralında ümummilli lider Heydər Əliyev “insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” fərman imzalamış, insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası səhih şəkildə müəyyən edilmişdir. insan hüquqları sahəsində proqram rolunu bu sənədlə insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır. 1998-ci il 18 iyun tarixdə isə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” təsdiq olunmuşdur. Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində əldə etdiyi ən mühüm nailiyyətlərdən biri də BMT və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış “İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında” memorandum olmuşdur. Bu memoranduma əsasən, BMT insan hüquqlarını dəstəkləmək və müdafiə etmək sahəsində ümumi biliklərin və potensialın Avropa standartlarına uyğunlaşdırılması, prosedur və hesabatlar sisteminin təkmilləşdirilməsi, mülki cəmiyyətin inkişafı və digər məsələlər sahəsində Azərbaycan Respublikası hökuməti ilə birgə tədbirlər həyata keçirmişdir.

Ümummilli lider Heydər Əliyevin ölkədə demokratiyanın inkişafı baxımından ən böyük xidmətlərindən biri də məhkəmə orqanlarının müstəqilliyinin təmin edilməsi, hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsidir. Böyük öndərin 1998-ci il 1 dekabr tarixdə imzaladığı “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsi barədə fərmanı respublikamızda yeni məhkəmə sisteminin formalaşmasına mühüm töhfə olmuşdur. Qanun ədalət mühakiməsinin həyata keçirilməsi prinsiplərinin müasirləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması baxımından olduqca mühüm əhəmiyyət daşımışdır. Məhkəmə fəaliyyətinin hüquqi əsaslarını

və ədalət mühakiməsinin daha səmərəli təşkili qaydalarını özündə ehtiva edən qanunda hakim vəzifəsinə seçkilərlə bağlı bir sıra zəruri tələblər də əksini tapmışdır. "Məhkəmələr və hakimlər haqqında" qanunun qəbulu məhkəmə orqanlarının sovet dövründən miras qalmış köhnə funksiyalardan azad olmasına, onların fəaliyyətinin müasir dövrün tələblərinə uyğunlaşdırılmasına, bir sözlə, ədalət məhkəmələrinin cəmiyyətdəki nüfuzunun möhkəmləndirilməsinə xidmət etmişdir.

28 dekabr 2001-ci il tarixdə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun qəbulu da respublikamızda insan hüquq və azadlıqlarının etibarlı təminatına xidmət etmişdir. 2 iyul 2002-ci il tarixdə Azərbaycan Respublikasının ilk Ombudsmanı seçilmiş, 28 oktyabr 2002-ci il tarixdən insan hüquqları və azadlıqlarının bərpası istiqamətində fəaliyyətə başlamışdır. Ulu öndər Heydər Əliyev demokratik dövlət quruculuğuna xidmət edən mütərəqqi hüquqi-siyasi, hüquqi islahatları davam etdirməklə yanaşı, həm də milli maraqlara xidmət edən çevik xarici siyasət xətti yürütmüş, ölkənin milli maraq və mənafelərini daim uca tutmuşdur. Son 15 ildə Azərbaycanda milli mənafelərə əsaslanmaqla həyata keçirilmiş xarici siyasət kursunun prioritet istiqaməti müstəqil və güclü dövlət modelinin praktik surətdə reallaşdırılmasına yönəlmiş, respublikamız beynəlxalq normalara istinad edərək sivil dünyanın hüquqi-siyasi atmosferini müəyyənləşdirən aparıcı dövlətlər və beynəlxalq təşkilatlarla münasibətlərini yüksək dinamizmlə inkişaf etdirmək xəttinə üstünlük vermişdir. Ulu öndərimiz Heydər Əliyevin möhkəm təməllər üzərində əsasını qoyduğu balanslaşdırılmış xarici siyasət uzaq hədəflərə hesablanmış strateji fəaliyyət konsepsiyası olmaqla, müstəqil Azərbaycanın beynəlxalq arenada nüfuz və mövqelərinin güclənməsinə, ümummilli problemlərinin həllinə yönəlmişdir.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan sivil dünyanın siyasi xəritəsində geostrateji mövqeyini möhkəmləndirmiş, qlobal məkanda cərəyan edən proseslərin istiqamətverici subyektinə çevrilməyə nail olmuşdur. Yeni dünya düzənində aparıcı güc mərkəzləri arasında gedən mübarizənin mahiyyətinə uyğun xarici siyasət yeridən müstəqil Azərbaycan Cənubi Qafqazın lokomotiv dövlətinə çevrilmiş, ölkəmizin regionda gerçəkləşdirilən bütün transmilli layihələrdə iştirakı təmin olunmuşdur. Böyük öndərin rəhbərliyi altında Azərbaycanın xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri ümummilli mənafelərə, habelə siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etmişdir. Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda rezonans doğuran qətiyyətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan böyük diplomatik məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bugünü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur. Məhz bütün bunların nəticəsidir ki, Azərbaycan cəmiyyəti Heydər Əliyevin əsasını qoyduğu unikal liderlik institutunu və dövlətçilik sistemini ölkənin beynəlxalq təhlükəsizliyinin, iqtisadi maraqlarının, siyasi sistemin sabitliyinin təmin edilməsinə yönələn fəlsəfi dünyagörüşü kimi qəbul edir. Qlobal miqyasda aparıcı dövlətlər, o cümlədən, Qərbin demokratik dairələri Azərbaycanın perspektivini bu kursdan kənarda təsəvvür etmirlər. Heydər Əliyevin xarici siyasət doktrinası bu fəlsəfi dünyagörüşün mahiyyəti barədə real təsəvvürlərin ortaya çıxmasını şərtləndirir.

Ümummilli lider Heydər Əliyev Azərbaycanın demokratik tərəqqisi üçün zəruri inkişaf kursunu irəli sürərək bu kursun alternativsizliyini real addımlar, əməli nəticələrlə sübuta yetirməklə bərabər, banisi olduğu dövlətçilik irsinin əbədiliyini təmin edəcək qüdrətli varis və lider yetişdirmişdir. Ulu öndərin müəyyən etdiyi strategiyanı uğurla həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə, onun xalqına, dövlətinə necə bağlı lider olduğu bir daha aydın görünür. Reallığı düzgün qiymətləndirmək bacarığı, praqmatikliyi, işgüzarlığı, sadəliyi, səmimiliyi, təvazökarlığı, alicənablığı, insanlara təmənnasız münasibəti, xalqına, millətinə, Vətəninə sevgisi, nəcibliyi, ziyalılığı, qətiyyətliliyi, məqsədə doğru inamla irəliləməsi cənab İlham Əliyevə xalqın rəğbət hissini daha da artıran ən mühüm mənəvi keyfiyyətlərdir. Moskva Beynəlxalq Münasibətlər İnstitutu kimi bütün dünyada məşhur ali təhsil müəssisəsində diplomatiya elminin incəliklərinə dərindən yiyələnmiş, bu sahədəki nəzəri biliklərini Heydər Əliyevin siyasət və idarəçilik məktəbində qazandığı təcrübi vərdişlərlə ümumiləşdirərək təcrübəli, peşəkar dövlət adamı kimi formalaşmış cənab İlham Əliyevin yüksək intellekti, istedadı, şəxsiyyəti, dövlətçilik məharəti ümumi vəhdət təşkil edir. İntellektlə istedadın, ənənə ilə novatorluğun, keçmişlə gələcəyin üzvi vəhdətinə, yaradıcı sintezinə nail olmaq qabiliyyəti, Azərbaycanın dünəni, bugünü və sabahına sonsuz, sarsılmaz sədaqət bunlar İlham Əliyev şəxsiyyətini hər kəsə sevdirən cəhətlərdir. Mövcud reallıqlar Azərbaycanın müasir dövlətçilik tarixində İlham Əliyev faktorunun prioritet, həlledici mahiyyətini bir daha ortaya qoyur. Bu səbəbdən də, İlham Əliyevin pozitiv siyasi obrazının mahiyyətini ictimai rəyin adekvat münasibətində axtarmaq lazımdır. Liderlik xüsusiyyətlərinin əksəriyyət tərəfindən qəbul edilmək, geniş siyasi spektrin inamını qazanmaq və elektoral dəstəyə malik olmaq kimi politoloji bir mənanı ehtiva etdiyini nəzərə alsaq, bu termini bütün kateqoriyalar üzrə İlham Əliyevə şamil

etmək olar. Cənab İlham Əliyev həm də müasir dünyanın qloballaşma və yeni geosiyasi reallıqlardan irəli gələn siyasi mənzərəsinin əsas cizgilərinə cavab verən siyasi liderdir.

Prezident İlham Əliyevin ictimai rəydəki statusunun möhkəmlənməsinə təsir göstərən ən başlıca məqamlardan biri də dövlət rəhbərimizin kifayət qədər təkmil siyasi təlimə ulu öndər Heydər Əliyevin milli dövlətçilik fəlsəfəsinə istinad etməsidir. Bu amilin Azərbaycan dövlətçiliyinin tarixi taleyindəki böyük rolu barədə geniş söhbət açmağa lüzum yoxdur. Həmin təlim Azərbaycanın müstəqilliyinə, dövlət müstəqilliyimizin əbədi, dönməz xarakter daşımasına təminat verir. Eyni zamanda, bu təlim dövlətin idarə edilməsi missiyasını üzərinə götürmüş şəxsdən daha məsuliyyətli və qətiyyətli olmağı tələb edir.

Azərbaycan Prezidenti xarizmatik liderdir və onun mütərəqqi siyasi keyfiyyətləri vizual görüşündə tam nəzərə çarpır. Cənab İlham Əliyevin kütlələrlə ən qısa ünsiyyəti belə onun əksər siyasi keyfiyyətlərini parlaqlığı ilə əks etdirir. Danışıq tempi, nitqindəki rəvanlıq, məntiqi ardıcıllıq, soyuqqanlı reaksiya, təmkin, psixoloji sabitlik Azərbaycan Prezidentinin siyasi portretinin aydın cizgiləridir. Cənab İlham Əliyev dövlət adamı olaraq nəzəriyyəçidən daha çox praktikdir. Dövlət başçısı öz nitqlərini hər hansı nəzəriyyələr üzərində yox, artıq reallıqda öz təsdiqini tapmış müddəalar üzərində qurur. Auditoriyanın xarakterindən asılı olmayaraq Azərbaycan Prezidenti insanlarla bütün ünsiyyət anlarında müstəqil dövlətimizin qarşısında dayanan yeni planlar, perspektivlər haqqında fikir və düşüncələrini aydın şəkildə çatdırır. Dövlət rəhbərinin hər bir nitqi onun cəmiyyət həyatının bütün əhəmiyyətli sahələri üzrə yüksək bilik səviyyəsinə malik olduğunu göstərir. Cənab İlham Əliyev bu biliyi heç də sırf nəzəri materiallar əsasında toplamamış, bu biliyi ona həyat təcrübəsi qazandırmışdır. Bütün məsələlərə ölçülüb-biçilmiş yanaşma tərzi Azərbaycan Prezidentinin çıxışlarmı nəzəri və təcrübi hazırlıq üzərində kökləndiyini göstərir.

Dövlət başçısı İlham Əliyev bu gün müstəqil Azərbaycan dövlətinin qarantı missiyasını daşıyır və bu göstərici Azərbaycanın qısa müddət ərzində iqtisadi inkişaf sürətinə görə bütün dünyada liderə çevrilməsi faktıdır. Akademik Ramiz Mehdiyev “Azərbaycan: qloballaşma dövrünün tələbləri” əsərində Prezident İlham Əliyevin liderlik keyfiyyətlərini daha dolğun və obyektiv təsvirini yaratmışdır: “Faktlardan qaçmaq olmaz və onlar sübut edir ki, İlham Əliyev yeni dövrün siyasətçisidir və özünün də dəfələrlə vurğuladığı kimi, hər bir azərbaycanlının Prezidenti olmaq, tarixin hələ tezliklə başa çatmayacaq mürəkkəb dövründə ölkəyə rəhbərlik etmək üçün bütün zəruri liderlik keyfiyyətlərinə malikdir. İlham Əliyevin dövlət və onun inkişafı barədə baxışları məlumdur. Onun başlıca arzu və istəkləri Azərbaycan dövlətini modernləşdirmək və ölkəni dünyamiqyaslı mühüm qərarlar qəbul edən sayseçmə ölkələr birliyinə daxil etməkdir. O, fəaliyyətində ardıcıl və praqmatik, rasional və səmimidir. Onu fərqləndirən cəhət budur ki, o, fəaliyyət dairəsi məhdud olan məmur deyil, geniş baxışlara malik siyasətçidir. Azərbaycana məhz belə siyasətçi amerikalıların işgüzarlığını, britaniyalıların ehtiyatlılığını, almanların dəqiqliyini, habelə məsuliyyətliliyini, azərbaycanlıların açıqlığı, səmimiliyi və tolerantlığım özündə birləşdirən siyasətçi lazımdır”.

Son 15 ildə ölkəmizdə həyata keçirilən effektiv iqtisadi islahatlar kursunu uğurla davam etdirərək dövrün tələblərinə uyğun yeni çalarlarla zənginləşdirən dövlət başçısı cənab İlham Əliyev hələ son prezident seçkiləri ərəfəsində verdiyi bütün vədləri böyük səylə, ardıcıl və sistemli surətdə yerinə yetirmişdir. Azərbaycanın sosial-iqtisadi yüksəlişi bu gün, ilk növbədə, insanların gündəlik həyatında özünü qabarıq büruzə verir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasətin məqsədyönlülüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaradır. Cənab İlham Əliyev qısa dövr ərzində imzaladığı məqsədyönlü fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin etmiş, dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olmuşdur.

“Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin” (www.president.gov.az) deyən cənab İlham Əliyevin ulu öndərin dövlətçilik irsinə necə sadiq olduğunu bir daha nümayiş etdirir. Son 5 ilin yekunlarının təhlili deməyə əsas verir ki, dövlət başçısı irəli sürdüyü bu prinsipləri gerçəkliyə çevirmək üçün ardıcıl, məqsədyönlü və uğurlu fəaliyyət göstərmiş, bütün məsələlərdə məhz xalqın mənafeyini əsas götürmüşdür. Azərbaycan Prezidentinin fəaliyyətinin təhlili göstərir ki, ötən illərdə konturları hələ böyük strateq Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş bütün konsepsiyalar uğurla davam etdirilmiş, zəruri hallarda məhz onun təşəbbüsü ilə dövrün tələblərinə uyğun olaraq keyfiyyət dəyişikliklərini özündə əks etdirmişdir.

İqtisadi cəhətdən inkişaf etmiş dövlətlərin sınaqdan çıxmış təcrübəsi göstərir ki, siyasi hakimiyyətin müəyyən zaman intervalında əldə etdiyi uğur və nailiyyətləri şərtləndirən başlıca amil məhz sosial məsuliyyət

prinsipidir. Cəmiyyət qarşısında götürdüyü öhdəliklərə sadiqlik nümayiş etdirən hakimiyyət komandası xalqa layiqli xidmət məramını əsas tutmaqla, ölkənin bütün mövcud resurslarını qarşıya qoyduğu strateji məqsədlərin gerçəkləşdirilməsi naminə səfərbər edir, siyasətində hər bir fərdin maraq və mənafeyini nəzərə almağa çalışır. Fəaliyyətini hər zaman ictimai inam və etimadı doğrultmaq məramı üzərində quran, hakimiyyətin mütəmadi olaraq gördüyü işlərlə bağlı xalqa hesabat verməsini idarəçilikdə mütərəqqi ənənə kimi formalaşdıran Azərbaycan Prezidenti İlham Əliyev də məhz fenomenal liderlik keyfiyyətləri sayəsində respublikamızı qısa müddətdə bütün sahələrdə sürətli inkişaf yoluna çıxarmışdır. Bölgələrin tarazlı və davamlı inkişafının təmin olunması, yeni iş yerlərinin açılması, infrastrukturun yeniləşdirilməsi, mövcud problemlərin aradan qaldırılması məqsədilə imzaladığı dövlət proqramlarının, fərman və sərəncamların icrası vəziyyəti ilə yerindəcə tanış olmaq, sıravi vətəndaşlarla birbaşa ünsiyyət quraraq mövcud çətinliklər barədə informasiyaları ilkin mənbədən almaq üçün vaxtaşırı Azərbaycanın müxtəlif rayonlarına təşkil edilən səfərlər də cənab İlham Əliyevin birinci prezidentlik dövrünün əsas istiqamətlərindən biri kimi diqqəti çəkmişdir. Vətəndaşlarla birbaşa təmaslara üstünlük verən, özünəməxsus təmkin və sadəliklə onların problemlərini dinləyən və həlli üçün qəti tapşırıqlar verən dövlət başçısının bu addımları ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmiş, xalqın öz Prezidentinə olan inamım, etimadmı daha da artırmışdır.

Dövlət başçısı makroiqtisadi inkişafı təmin etməklə yanaşı, yüksək siyasi qətiyyət nümayiş etdirərək Azərbaycan üçün bir sıra taleyüklü məsələlərin yoluna qoyulmasına da nail olmuşdur. Ümummilli liderin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara verilmiş, vaxtilə çoxlarına əfsanə kimi görünən bu layihələr reallığa çevrilərək Xəzərin karbohidrogen ehtiyatlarını dünya bazarlarına daşınmasını təmin etmişdir. Azərbaycanın bu gün Avropanın enerji təhlükəsizliyi sisteminin əsas təminatçısı qismində çıxış etməsi danılmaz faktdır. Etiraf etməliyik ki, bu problem bir çox hallarda ölkələrin müstəqilliyini təhdid edən, müstəqil dövlətlərin demokratik inkişafına maneə yaradan çox ciddi əngələ çevrilir. Azərbaycan isə nəinki belə problemlərdən uzaqdır, üstəlik respublikamız Avropa regionunun enerji təhlükəsizliyinin təminatında əsas söz sahiblərindən biri kimi çıxış edir.

Azərbaycan Prezidentinin xarici siyasət kursu müstəqil dövlətimizin milli mənafelərinə hörmətlə yanaşan bütün beynəlxalq təşkilatlar və xarici dövlətlərlə əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi müstəvisi üzərində qurulmuşdur. Avropa ailəsinə inteqrasiya edən Azərbaycanda cəmiyyəti bütün liberal dəyərləri mənimsəmiş, insan hüquq və azadlıqlarının təminatı, demokratikləşmə sahəsində mühüm uğurlara imza atmışdır. Bu illərdə Avropa Şurası qarşısında götürülən öhdəliklərin yerinə yetirilməsi prosesi başa çatmış, ölkəmiz Avropa Birliyinin “Yeni Qonşuluq Siyasəti” proqramına, habelə NATO-nun “Fərdi əməkdaşlıq üzrə fəaliyyət planı”na qoşulmuş və modern ordu quruculuğunu təşkilatın standartlarına uyğunlaşdırmaq istiqamətində mühüm addımlar atmışdır.

Dövlət başçısının 2008-ci il iyunun 26-da keçirilmiş möhtəşəm hərbi paradda bəyan etdiyi kimi, bu gün Azərbaycan Ordusu regionun ən güclü, təminatlı, modern ordusudur. Milli Ordunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən hərbi qulluqçuların sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi cənab İlham Əliyevin xüsusi diqqət mərkəzindədir. Ali Baş Komandan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin mümkün olmayacağı təqdirdə, xalqın öz torpaqlarını azad etmək üçün silaha sarılacağını gizlətmir və Silahlı Qüvvələrin buna tam qadir olduğunu bəyan edir. Milli Orduya dövlət büdcəsindən ayrılan vəsaitlərin həcmi ildən-ilə artırılır və bu da paralel olaraq maddi-texniki təminatın, döyüş əhval-ruhiyyəsinin, nizam-intizamın güclənməsinə səbəb olur. 2009-cu ildə ordu quruculuğuna dövlət büdcəsindən ayrılmış vəsaitlərin həcmi əhəmiyyətli dərəcədə artaraq 2 milyard 300 milyon dollara çatmışdır. Nəzərə alsaq ki, 5 il əvvəl Silahlı Qüvvələrimizin büdcəsi cəmi 150 milyon dollar təşkil edirdi, inkişafın miqyası barədə daha əyani təsəvvür yaranar.

Azərbaycan Prezidenti İlham Əliyevin 5 ilə yaxınlaşan prezidentlik fəaliyyətinə nəzər salarkən, onun Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın milli mənafelərinə və beynəlxalq hüquq normalarına uyğun həlli istiqamətindəki səylərini xüsusi vurğulamaq lazımdır. Dövlət başçısının xarici siyasət doktrinasında bu problemin həlli öncül yeri tutur və real siyasi fəaliyyətə əsaslanır. Cənab İlham Əliyev bütün xarici səfərlərdə, görüşlərdə bu problemi ön plana çəkir, ölkəmizin haqlı mövqeyini bir daha dünya ictimaiyyətinin nəzərinə çatdırır. Dövlət başçısı problemin Azərbaycanın ümdə maraqları qorunmaqla, beynəlxalq hüquq və normaları çərçivəsində sülh yolu ilə həlli üçün bütün mümkün imkanlardan istifadə ediləcəyini dəfələrdə bəyan etmişdir. Nəticədə, rəsmi Bakının münaqişə ilə bağlı mövqeyinin getdikcə güclənməsi müşahidə olunur və bunu dövlət başçısı cənab İlham Əliyev hökumətin 2008-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasında da razılıqla bildirmişdir. Ölkənin iqtisadi cəhətdən qüdrətlənməsi Azərbaycanın diplomatik sahədə əldə etdiyi nailiyyətlərdə özünü göstərir.

İqtisadi cəhətdən güclü olmayan bir dövlətin xarici siyasət, o cümlədən demokratikləşmə və insan hüquqlarının etibarlı təminatı sahəsində böyük uğurlar qazanması mümkün deyil. İnamla demək olar ki, ulu öndər Heydər Əliyevin əsasım qoyduğu məhkəmə-hüquq islahatları da Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilir. Dövlət başçısı səlahiyyətlərinin icrasına başladığı ilk gündən demokratikləşməyə və insan hüquq və azadlıqlarının təminatına xidmət edən islahatların davam etdiriləcəyini vurğulamış, bu istiqamətdə ardıcıl və sistemli tədbirlər həyata keçirmişdir. Ötən müddətdə ölkəmizin məhkəmə-hüquq sistemində əsaslı islahatlar aparılmış, bu mühüm sahədə fəaliyyətin təkmilləşdirilməsi, ədliyyə orqanlarının inkişafı, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, müstəqil məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi üzrə genişmiqyaslı tədbirlər görülmüşdür.

Dövlət başçısının təşəbbüsü ilə 2004-cü ilin dekabrında "Məhkəmə-Hüquq Şurası haqqında", "Konstitusiya Məhkəməsi haqqında" yeni qanunlar qəbul olunmuş, "Məhkəmələr və hakimlər haqqında" qanuna bir sıra mütərəqqi dəyişikliklər edilmişdir. Məhkəmə-Hüquq Şurasının fəaliyyəti gücləndirilmiş, Hakimlərin Seçki Komitəsi tərəfindən vakant hakim vəzifələrinə namizədlərin seçilməsi prosesinə başlanılmışdır.

Azərbaycanın son illər dünya enerji satışı bazarında çəkisinin və rolunun xeyli dərəcədə artması Avropa dövlətlərinin respublikamızla bu sektorda sıx əməkdaşlıq etmək marağını daha da gücləndirmişdir. Respublikamızın Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığı hazırda istər fövqəlgüc dövlətləri, istərsə də aparıcı beynəlxalq təşkilatlar tərəfindən birmənalı etiraf olunur. Ulu öndər Heydər Əliyevin yeni neft strategiyasını inamla davam etdirən Prezident İlham Əliyevin diplomatik səyləri nəticəsində Azərbaycan bu gün regionda hansısa ölkədən enerji asılılığı olmayan, tələbatını daxili imkanlar hesabına ödəməyə qadir yeganə respublika kimi çıxış edir. Respublikamızda uğurla həyata keçirilən enerji siyasətinin məqsədi Azərbaycanın dünya bazarına çıxışını artırmaq, həmin bazarlar üçün alternativ mənbə yaratmaq, habelə dünya bazarına çıxışın şaxələndirilməsini təmin etməkdən ibarətdir və bu da beynəlxalq ictimaiyyətin maraqlarına tamamilə cavab verir. Cari ilin əvvəllərindən Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin işə düşməsi respublikamızın bütövlükdə Avropanı təbii qazla təminatına da geniş imkanlar açmışdır.

Bir müddət əvvəl İsveçrənin Davos şəhərində keçirilmiş Ümumdünya iqtisadi Forumunun gedişi bir daha təsdiqləmişdir ki, etibarlı enerji təhlükəsizliyinin təminatı məsələsi düşünülmüş strategiya əsasında genişmiqyaslı tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Bunun üçün ilk növbədə qabaqcıl texnologiya əsasında alternativ enerji daşıyıcıları şəbəkəsi yaradılmalı, zəruri infrastruktur formalaşdırılmalıdır. Xaricdən enerji asılılığının azaldılması baxımından boru kəmərlərinin geosiyasi nöqteyi-nəzərdən təhlükəsiz marşrutlarla çəkilişi təmin olunmalı, habelə alternativ enerji mənbələrinin işə salınması istiqamətində ciddi addımlar atılmalıdır. Bu baxımdan Xəzər hövzəsinin qaz ehtiyatlarının nəqlində əsas ağırlığı üzərinə götürəcək "Nabukko" layihəsinin əhəmiyyəti xüsusi vurğulanmalıdır.

Bu gün inamla demək olar ki, Azərbaycan Prezidenti İlham Əliyevin ölkənin demokratikləşdirilməsi sahəsində yeritdiyi ardıcıl siyasətə Heydər Əliyev Fondu da öz töhfəsini verir. 2004-cü ildən analoqu olmayan əlahiddə statuslu ictimai qurum kimi fəaliyyət göstərən Heydər Əliyev Fondu nəcib, xeyirxah və humanist insani dəyərlərə tapınaraq ümummilli liderin zəngin dövlətçilik irsinin bütün dünyada tanıdılması və təbliği istiqamətində ardıcıl iş aparır. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva çoxşaxəli fəaliyyətində ümummilli liderin zəngin dövlətçilik və idarəçilik fəlsəfəsinə əsaslanaraq milli-mənəvi və intellektual yüksəlişə xidmət edən idealların cəmiyyətdə daha da möhkəmlənməsinə çalışır. Azərbaycanın birinci xanımının istər milli-mənəvi irsin qorunması və dünya miqyasında təbliği, istər elm və təhsilin səviyyəsinin yüksəldilməsi, istərsə də səhiyyənin inkişafı, insanların fiziki-mənəvi sağlamlığının təminatı yönümündə həyata keçirdiyi strateji layihələr onun fəal vətəndaşlıq mövqeyində dayanmasının, yüksək mənəvi məsuliyyətinin təzahürüdür.

Cəmiyyətdə bir sıra mütərəqqi yeniliklərin təşəbbüskarı kimi çıxış etməklə yanaşı, Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə olaraq "birinci xanım" ənənəsini də öz fəaliyyəti ilə məhz Mehriban xanım Əliyeva formalaşdırmış, bu statusda böyük ictimai rəğbət və etimad qazanmışdır. Məhz Azərbaycanın birinci xanımının timsalında bu status humanist fəaliyyətə, qayğıkeşliyə, eləcə də hansısa problemlərlə qarşılaşan, hansısa məqamda hüquqları pozulan sıravi vətəndaşların ümid yerinə çevrilmişdir.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən çoxşaxəli layihələri birləşdirən bir ümumi ortaq xətt isə məhz milli genefondun qorunması, saf dəyər və duyğuların ictimai şüurda intişar tapmasıdır. Azərbaycanın birinci xanımı haqlı olaraq informasiya texnologiyalarının sürətlə inkişaf etdiyi müasir dövrdə insani və mənəvi-əxlaqi dəyərlərin yad təsirlərdən qorunmasına daha çox ehtiyac olduğunu bildirir. Bu baxımdan Fondun həyata keçirdiyi xoşməramlı tədbirlər

sırasında elm və təhsilə qayğının xüsusi yer tutması da təsadüfi olmayıb, milli-mənəvi irsin qorunması məqsədinə xidmət edir.

Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti, eyni zamanda Azərbaycanın beynəlxalq aləmdə tanıdılması, mühüm beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrinin genişləndirilməsidir. Son illərdə məhz Mehriban xanım Əliyevanın təşəbbüsü, YUNESKO-nun iştirakı ilə Bakıda təşkil olunan yüksək səviyyəli beynəlxalq tədbirlərdə dünyada sülh və sabitliyin möhkəmləndirilməsi, mədəniyyətlərarası dialoqun genişləndirilməsi, dini-irqi ayrı-seçkiliyin, savadsızlığın aradan qaldırılması kimi nəcib ideyalar üstünlük təşkil etmişdir.

Azərbaycanın son beş ildə qazandığı böyük nailiyyətlər cənab İlham Əliyev klassik siyasətdən XXI yüzilliyin modern siyasətinə uğurlu keçid formulunu ilk dəfə, özü də müvəffəqiyyətlə sınaqdan çıxaran siyasətçi obrazının daşıyıcısı olaraq siyasətdə, diplomatiyada eyni dərəcədə mühafizəkar, ənənəçi və yenilikçi, liberal olmaqla, mötədil dəyərləri sintez etməyi bacarır. Prezident İlham Əliyev iti zəkası, vaxtında qərar qəbul etmək bacarığı, fəhmi, hazırlıq səviyyəsi, analitik təhlil qabiliyyəti hesabına istər fərdi qaydada, istərsə də komanda halında uğurlu fəaliyyət göstərir. Bütün bunlar tam və qəti şəkildə deməyə əsas verir ki, İlham Əliyev fenomeni bu gün müstəqil Azərbaycanın siyasi simasını müəyyən edir və onun rəhbərliyi altında ulu öndər Heydər Əliyevin dövlətçilik irsinin davam etdirilməsi tarixi zərurət, başqa sözlə desək, sosial sifarişdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Əliyev İ. Azərbaycanın strategiyası // Dirçəliş-XXI əsr, 2004, № 82-83. s. 3-7
2. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Bakı: Azərbaycan, 1994, 174 s.
3. Hüseynova İ. Mehriban xanım Əliyevanın fəaliyyəti nəciblik və mərhəmət nümunəsidir // Dirçəliş-XXl əsr , 2005-2006, № 94-95. s. 39
4. Hüseynova İ. Liderlik nümunəsi // Dirçəliş-XXI əsr, 2009, № 130-131, s. 90-98
5. Hüseynova İ. Azərbaycan Qafqazda lider dövlətdir // Dirçəliş-XXl əsr, 2008, № 118-119, s. 344 - 354
6. Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı: XXI əsr Yeni Nəşrlər Evi, 2005, 433 s.
7. Mehdiyev R. Azərbaycanda siyasət: dünən, bu gün və sabah // Dirçəliş-XXI əsr, 2002, № 49, s. 68-85
8. Гусейнова И. Гейдар Алиев и национально-духовные ценности азербайджанского народа // Dirçəliş-XXI əsr, 2009, №128-129, c. 73-90

**«Dirçəliş XXI əsr».**-2009.-№133-134.-S.86-99

# "ƏSRİN MÜQAVİLƏSİ" – YÜKSƏLİŞ YOLUNUN UĞURLU TƏMƏLİ

**Rafael CƏBRAYILOV,**
Milli Məclisin deputatı

**Qloballaşan dünyanın geosiyasi mənzərəsinə təsir göstərən mühüm amillərdən biri də zəngin enerji resursları üzərində nəzarətin təmin olunması və neft-qaz ehtiyatlarının təhlükəsiz marşrutlarla dünya bazarına çatdırılmasıdır. Belə kəskin rəqabət mühitində təbii sərvətlərin zənginliyi heç də bütün dövlətlərə iqtisadi nailiyyətlər və xoşbəxtlik gətirmir. Tarixi təcrübə sübut edir ki, neftlə zəngin bir çox dövlətlər uğursuz iqtisadi siyasətin məntiqi nəticəsi kimi həqiqi müstəqilliklərini itirərək mahiyyətcə müstəmləkəyə çevrilmiş, ağır sosial-iqtisadi problemlərlə, aclıq və səfalətlə üzləşmişlər.**

Bu günün özündə də neftlə zəngin bir çox ölkələrin qeyri-stabillik mühitində yaşaması, təbii sərvətləri üzərində sahiblik hüququnu itirməsi ilə bağlı çoxsaylı misallar gətirmək mümkündür. Dünya təcrübəsində iqtisadiyyatın yalnız neft üzərində qurulması, habelə neft gəlirlərinə güvənmə nəticəsində iqtisadi sistemi iflic edən "Holland sindromu " kimi bədnam təcrübə mövcuddur. Bu reallıqlar fonunda hər bir təbii sərvətdən, o cümlədən neftdən xalqın və dövlətin mənafeyi naminə düzgün, səmərəli istifadə etmək uzaq hədəflərə hesablanmış praqmatik siyasət yeridilməsini tələb edir. Əks təqdirdə, neftin zənginliyi dövlətlər üçün iqtisadi inkişaf və tərəqqi deyil, yalnız arzuolunmaz problemlər gətirir.

Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində neft diplomatiyası sahəsində yeridilən naşı və yarıtmaz siyasətin fəsadlı nəticələri bu qənaətin həqiqiliyini bir daha təsdiqləyir. SSRİ-nin süqutundan sonra iqtisadi potensialına görə müstəqil yaşamaq imkanlarına malik üç respublikadan biri sayılan Azərbaycan müstəqillik əldə edərkən təbii sərvətlərinə sahib çıxmaq və Xəzərin özünə aid sektorunda siyasi-iqtisadi mənafeyini təmin etmək baxımından ciddi problemlərlə üzləşmişdi. 1991-1993-cü illərdə daxildə ictimai-siyasi sabitliyin pozulması, xaos və anarxiya mühitinin formalaşması, iqtisadi tənəzzül prosesinin dərinləşməsi Qərbin nüfuzlu neft şirkətlərini Azərbaycanla hər hansı əməkdaşlıqdan çəkindirirdi. Birillik hakimiyyəti dövründə AXC-Müsavat iqtidarının apardığı uğursuz danışıqların nəticəsi kimi hazırlanmış layihə isə dövlətin və xalqın mənafelərinə qətiyyən cavab vermirdi. Bu qüvvələr qısamüddətli hakimiyyətləri dövründə hazırladıqları ilk neft müqaviləsində ümumi payın düz 60 faizini yalnız bir şirkətə – Böyük Britaniyanın bp şirkətinə ayrılmasına razılıq vermişdilər. Saziş layihəsində bir tərəfdən Azərbaycanın payı yolverilməz dərəcədə aşağı həddə göstərilmiş, eyni zamanda, hasil olunacaq səmt qazının respublikamıza satışı nəzərdə tutulmuşdu.

1999-cu ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanmasının beşinci ildönümü ilə bağlı keçirilən mərasimdə o zaman ARDNŞ-in birinci vitse-prezidenti vəzifəsini tutan cənab İlham Əliyev haqlı olaraq demişdir: "1993-cü ilin yazında Azərbaycanın əvvəlki rəhbərliyi tərəfindən elə bir müqavilə variantı hazırlanmışdı ki, əgər o imzalansaydı, ölkə iqtisadiyyatına böyük zərər gətirmiş olardı. Xalq Cəbhəsi rejimi öz acınacaqlı vəziyyətini heç olmasa, bir qədər yaxşılaşdırmaq üçün müqaviləni hər cür şərtlərlə, ən yararsız, hətta milli mənafeyə zidd olan şərtlərlə imzalamağa hazır idi. Onlar anlamırdılar, heç anlamaq belə istəmirdilər ki, müqavilənin şərtləri Azərbaycanın iqtisadi inkişafı üçün nə deməkdir ".

Azərbaycanın gələcək müqəddəratı baxımından son dərəcə vacib olan neft sektorunun böhranlı vəziyyətdən çıxarılması, milli maraqlara və praqmatizmə əsaslanan neft diplomatiyasının həyata keçirilməsi yalnız ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra mümkün olmuşdur. XX əsr dünya tarixinin parlaq şəxsiyyətlərindən biri olaraq Azərbaycan xalqının müstəqillik arzusunu konkret dövlət modelində gerçəyə çevirən və milyonların qəlbində özünə əzəmətli abidə ucaldan ümummilli lider Heydər Əliyev bu gün həm də müstəqil respublikamızın yeni neft strategiyasının müəllifi kimi böyük rəğbət və ehtiramla yad edilir. Hələ 70-80-cı illərdə respublikamızın müəyyən təkamül yolu keçmiş neft sənayesinin dirçəlişi və müasir texnologiyalar əsasında inkişafı üçün bir sıra zəruri tədbirlər həyata keçirən, bu sahədə elmi tədqiqatları stimullaşdırmaqla Bakını "neft akademiyası"na çevirən Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi illərində bu uğurlu bünövrə üzərində yeni neft strategiyasını reallaşdırmağa müvəffəq olmuşdur. Əsrlər boyu zəngin təbii sərvətləri ilə bütün dünyada tanınan, ən müxtəlif dövlətlərin iqtisadi maraq dairəsinə daxil olan Azərbaycan məhz Heydər Əliyev dühasının müəyyən etdiyi praqmatik konsepsiya əsasında təbii sərvətlərinə sahiblik hüququnu təsdiqləmiş və halal haqqını təmin etmişdir.

Böyük öndərin ciddi diplomatik səyləri nəticəsində daxildə möhkəm təməllərə əsaslanan ictimai-siyasi sabitliyin bərqərar olunması, qanunçuluğun gücləndirilməsi, xarici sərmayələrə dövlət təminatının verilməsi xarici investorların respublikamıza münasibətinin əsaslı surətdə dəyişməsinə gətirib çıxarmışdır. Ümummilli lider Azərbaycanın güclü və qüdrətli dövlətə çevrilməsi üçün ölkənin malik olduğu zəngin karbohidrogen ehtiyatlarından səmərəli istifadəni son dərəcə vacib sayaraq ilk gündən yeni neft strategiyasının işlənib

hazırlanması və uğurla həyata keçirilməsi üçün əzmlə çalışmışdır. İqtisadi problemlər məngənəsində sıxılan Azərbaycanın məhdud maliyyə imkanları ilə zəngin neft-qaz yataqlarının mənimsənilməsinin, bu əvəzsiz təbii sərvətin dünya bazarlarına çıxarılmasının qeyri-mümkünlüyünü düzgün qiymətləndirən Heydər Əliyev çıxış yolunu Qərb şirkətləri ilə milli maraqlara söykənən əməkdaşlığın qurulmasında görmüşdür. AXC-Müsavat hakimiyyəti dövründə hazırlanmış müqavilə siyasi və iqtisadi baxımdan Azərbaycanın deyil, Qərbin neft şirkətlərinin maraqlarına daha çox cavab verdiyindən, ulu öndər böyük diplomatik məharətlə bu istiqamətdə aparılan danışıqların məcrasını dəyişməyə müvəffəq olmuşdur. 1993-cü ilin iyun ayının 18-də ABŞ-ın nüfuzlu “Çikaqo tribun ” qəzetinə verdiyi müsahibəsində Heydər Əliyev Azərbaycan dövlətinin prinsipial mövqeyini bir daha açıq bəyan etmişdir. “Başa düşürəm ki, Azərbaycana cəlb olunmuş neft şirkətlərinin öz iqtisadi maraqları var. Bu isə tamamilə təbii məsələdir. Ancaq eyni zamanda, biz də ölkəmizin maraqlarını neft şirkətlərinin mənafelərindən yüksək tutmalıyıq “, – deyən ümummilli liderin qətiyyətli addımları nəticəsində Qərbin aparıcı neft şirkətləri ilə Azərbaycanın mənafeyinə cavab verən müqavilənin imzalanması istiqamətində danışıqlara başlanılmışdır.

Qərb şirkətləri ilə aparılan danışıqların müsbət nəticə verəcəyinə təkcə xaricdə deyil, həm də daxildə müəyyən şübhələr var idi. O zaman ümummilli liderin yeritdiyi siyasətə xəyanət yolu tutan yüksək vəzifəli bəzi bədxah məmurlar “Əsrin müqaviləsi”nin gerçəkləşməsi əleyhinə dolayı təbliğat aparmaqdan belə çəkinmirdilər. Dövlət idarəetmə mexanizmlərinin hələ tam oturuşmadığı, bəzi qonşu dövlətlərlə münasibətlərdə ciddi psixoloji-siyasi gərginliyin hökm sürdüyü, atəşkəs rejiminin kövrək xarakter daşıdığı, Xəzərin hüquqi statusu ilə bağlı mübahisələrin kəskinləşdiyi bir vaxtda “Əsrin müqaviləsi”nin imzalanması bir çoxlarına qeyri-real görünürdü.

Qərb şirkətlərinin Xəzərlə bağlı hansısa layihənin gerçəkləşməsində iştirakı təkcə iqtisadi deyil, həm də strateji-siyasi məsələ kimi nəzərdən keçirilirdi. Qərb şirkətləri milyardlarla dollar sərmayəni mürəkkəb geosiyasi məkanda yerləşən Azərbaycana yatırmağı riskli hesab edirdilər. Bu tərəddüdlərə, aşkar-gizli maneələrə məhəl qoymayan ümummilli lider Heydər Əliyev hələ 1994-cü il fevralın 4-də “Azərbaycanın dəniz və qaz yataqlarının işlənilməsinin sürətləndirilməsi haqqında” sərəncam imzalamaqla qətiyyətli lider olduğunu bir daha nümayiş etdirmiş, eyni zamanda, danışıqlar prosesi üçün hüquqi prinsiplər müəyyənləşdirmişdir. Mühüm tarixi əhəmiyyət kəsb edən həmin sərəncamda dənizdəki karbohidrogen ehtiyatlarının ölkənin ümumi mənafeləri çərçivəsində istismarını sürətləndirmək üçün müvafiq tədbirlərin həyata keçirilməsinin zəruriliyi, xarici neft şirkətləri və beynəlxalq konsorsiumlarda əlverişli müqavilələrin bağlanması üçün effektli tədbirlər görülməsinin vacibliyi vurğulanır, ümumilikdə, sərəncam neft-yataqlarının işlənilməsinin əsas prinsiplərini müəyyənləşdirirdi.

1994-cü ilin aprelində diplomatiya sahəsində zəngin bilikləri olan, biznes mühitinin incəliklərini dərindən mənimsəyən cənab İlham Əliyevin Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin beynəlxalq əlaqələr üzrə vitse-prezidenti təyin edilməsi isə xalq və dövlət naminə düzgün seçim olmaqla ulu öndərin Qərb şirkətləri ilə aparılacaq danışıqlara necə böyük əhəmiyyət verməsinin əyani göstəricisi idi. Səlahiyyətlərinin icrasına inamla başlayan cənab İlham Əliyev Azərbaycanın mənafeyini əks etdirən yeni neft strategiyasının hazırlanması prosesində ulu öndərin ən etibarlı, işgüzar və bacarıqlı köməkçisinə çevrildi. Onun üzərinə bütün mövcud çətinliklərin öhdəsindən gəlmək, neft müqavilələrində Azərbaycanın milli mənafelərinin maksimum səviyyədə qorunmasına nail olmaq kimi tarixi missiya düşdü. Bu vəzifəyə təyinatından cəmi iki həftə sonra neft müqaviləsi layihəsinin hazırlanması məqsədilə əvvəl Türkiyəyə, daha sonra isə ABŞ-ın Hyuston şəhərinə yola düşən cənab İlham Əliyev diplomatik bacarığını yüksək səviyyədə nümayiş etdirərək Qərb şirkətlərində inam və etimad formalaşdırmağa nail oldu. Bu hadisə bir daha təsdiqlədi ki, cənab İlham Əliyev ən çətin, mürəkkəb şəraitlərdə belə ölkənin milli mənafelərini layiqincə müdafiə etmək əzmindədir.

2009-cu il sentyabrın 15-də “Buta” sarayında “Əsrin müqaviləsi”nin 15-ci ildönümünə həsr olunmuş təntənəli mərasim keçirildi. Mərasimdə çıxış edən Prezident İlham Əliyev bu müqavilənin imzalanmasının ölkəmizin hərtərəfli inkişafı baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirmişdi: “Mən o günləri çox yaxşı xatırlayıram. 1994-cü ildə danışıqların son mərhələsi gedirdi və Azərbaycan tərəfi çalışırdı ki, Azərbaycanın milli maraqları maksimum dərəcədə təmin olunsun və Azərbaycana böyük investisiya axını təşkil edilsin. Bu gün, 15 il keçəndən sonra deyə bilərəm ki, bu 15 il ərzində Azərbaycanın milli maraqları tam şəkildə təmin olunmuşdur. Azərbaycan bu kontraktın icrası nəticəsində böyük və uğurlu yol keçmişdir. Bizim uğurlu gələcəyimiz böyük dərəcədə 15 il bundan əvvəl imzalanmış kontrakta söykənir. Eyni zamanda, bizimlə bərabər işləyən və o vaxt bizi yaxşı tanımayan xarici şirkətlər də gördülər ki, Azərbaycan etibarlı tərəfdaşdır, Azərbaycan sərmayə qoyuluşu üçün çox gözəl bir ölkədir, Azərbaycanla işləmək xeyir gətirir. Bu gün də əminəm ki, əməkdaşlıqdan həm biz, həm də ki, bizim xarici tərəfdaşlar razıdırlar. Bu, əslində beynəlxalq əməkdaşlığın çox gözəl nümunəsidir”.

"Əsrin müqaviləsi"nin imzalanması ərəfəsində Azərbaycan rəhbərliyinin qətiyyətli mövqeyi ilə barışmaq istəməyən müəyyən xarici və daxili qüvvələr hər vəchlə rəsmi Bakıya təzyiq göstərməyə, onu bu yoldan döndərməyə çalışırdılar. Ölkə rəhbərliyinin bütün diplomatik səylərinə baxmayaraq, Kremldəki bəzi imperialist dairələrin Azərbaycanın dövlət müstəqilliyi əleyhinə yönəlmiş addımlarını davam etdirmək xəttindən əl çəkə bilməməsi də özünü daha qabarıq büruzə verirdi. Azərbaycana kənar təzyiqlərin getdikcə artdığı belə bir mərhələdə Qərb şirkətləri ilə başlanmış danışıqları sona çatdırmaq ölkə iqtidarından ciddi siyasi iradə və əzmkarlıq tələb edirdi. Fəqət, ümummilli lider Heydər Əliyev xalqın dəstəyi ilə bu maneələri inamla dəf edərək 14 sentyabr 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasının hüquqi əsaslarını müəyyənləşdirən növbəti fərmanı imzaladı. Bu fərmanda müqavilənin imzalanması üçün hazırlanmış saziş layihəsi müsbət qiymətləndirilir, Azərbaycanın belə bir layihəyə imza atmasının əhəmiyyəti önə çəkilirdi. Həmin saziş layihəsində isə yataqların işlənilməsi üçün tələb olunan investisiyaların 80 faizinin ARDNŞ və müqaviləni imzalayacaq konsorsium şirkətləri tərəfindən qoyulacağı göstərilmişdi. Layihə sazişin qüvvəyə minməsindən sonra ilk neftin 18 ay ərzində çıxarılmasını nəzərdə tuturdu. İmzalanacaq müqavilədə əsas yataqlarda neft hasilatına 48 aydan gec olmamaq şərtilə başlanması da ümdə prinsiplərdən biri kimi əksini tapmışdı. Sənəddə həmçinin Azərbaycan neftinin dünya bazarına səmərəli yolla çıxarılmasını təmin edən neft kəmərinin tikintisinə 54 ay ərzində start verilməsi nəzərdə tutulmuşdu. Bundan başqa, neftlə birgə çıxan və ehtiyatları 55 milyard kubmetr həcmində dəyərləndirilən səmt qazının da Azərbaycana verilməsi müqavilədə dəqiq şəkildə göstərilmişdi. Sazişin əhatə etdiyi 90 milyard kubmetr həcmində ehtiyatlara malik qaz yataqlarının istismarı hüququ da məhz Azərbaycana verilmişdi.

Ümumiyyətlə, Azərbaycan rəhbərliyi həmin illərdə həqiqətən də heç bir səhvə yol vermədən aparıcı Qərb şirkətləri ilə gedən danışıqların məntiqi sonluqla yekunlaşmasına nail oldu. 1994-cü ilin 20 sentyabrında Bakıda dünyanın 11 transmilli neft şirkətinin iştirakı ilə çağdaş tariximizə "Əsrin müqaviləsi" adı ilə düşmüş qlobal neft müqaviləsinin təntənəli imzalanma mərasimi keçirildi. Bununla da Azərbaycan MDB məkanında Qərbin iri neft şirkətləri ilə irimiqyaslı saziş imzalayan ilk dövlət olmaqla, Xəzər dənizində beynəlxalq əməkdaşlığın bünövrəsini qoydu. Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq", "Günəşli" yataqlarının birgə mənimsənilməsini nəzərdə tutan bu sazişin reallaşması, ərsəyə gəlməsi təkcə respublikamız üçün deyil, Qərbin bir sıra aparıcı dövlətləri, habelə Cənubi Qafqaz və Orta Asiya regionu üçün strateji əhəmiyyət daşıyırdı. Bu qlobal enerji müqaviləsi Azərbaycanın müstəqil dövlət olaraq öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını sonadək müdafiə etmək əzmində olduğunu təsdiqlədi.

"Əsrin müqaviləsi"nin imzalanmasından sonra dünyada əsas enerji mənbələrinə nəzarət uğrunda mübarizənin kəskinləşməsi sözügedən müqavilə çərçivəsində hasil olunacaq milyonlarla ton xam neftin hansı əsas marşrutla Qərb bazarlarına nəql ediləcəyi məsələsini də başlıca mübahisə predmetinə çevirmişdi. Bu məsələ ilə bağlı fərqli təklif və ideyalar təkcə layihənin iştirakçısı olan dövlətlərin iqtisadi deyil, həm də təhlükəsizlik maraqlarından irəli gəlirdi. Eyni zamanda, region dövlətləri əsas ixrac boru kəmərinin məhz onların ərazisindən keçməsinə, beləliklə də külli miqdarda tranzit gəlirinə sahib çıxmağa, eyni zamanda, alternativ enerji mənbələri əldə etməyə çalışırdılar. Mümkün marşrutlar içərisində hansının siyasi, kommersiya, iqtisadi, ekoloji və təhlükəsizlik baxımından daha əlverişli olması uzun müddət dünya siyasətinin aparıcı mövzusuna çevrilmişdi. Məsələnin aktuallığı həm də Bakı-Novorossiysk və Bakı-Tbilisi-Supsa neft kəmərlərinin Azərbaycanın getdikcə artan ehtiyaclarını ödəyə bilməməsi, xüsusən də birincinin geosiyasi baxımdan əlverişli olmaması ilə şərtlənirdi. Həmin vaxt layihənin əleyhdarları bu strateji kəmərin Bakı-Tbilisi-Ceyhan (BTC) marşrutu üzrə gerçəkləşməsini əfsanə hesab edir, onun reallıqdan tamamilə uzaq olduğunu bildirirdilər. "Bizim Bakı-Ceyhandan başqa yolumuz yoxdur. Bu, bizə həm iqtisadi baxımdan faydalıdır, həm siyasi baxımdan, həm də ən mühümü müstəqilliyimizi möhkəmləndirmək üçün ən əsas amildir", – deyən ulu öndər Heydər Əliyev böyük diplomatik səylər hesabına sözügedən layihənin siyasi baxımdan alternativsiz olduğunu beynəlxalq miqyasda tam sübuta yetirdi və müvafiq sazişin imzalanmasına nail oldu. Bununla da müstəqil respublikamızın davamlı inkişafı və yüksəlişi üçün daha bir möhkəm bünövrənin əsası qoyuldu.

2003-cü ilin 15 oktyabrında ulu öndərin layiqli siyasi varisi – cənab İlham Əliyevin xalqın istəyi ilə Azərbaycan Prezidenti seçilməsi Heydər Əliyevin yeni neft strategiyasının məntiqi sonluğa yetişməsini uğurla təmin etmişdir. Cənab İlham Əliyev neft strategiyasında varisliyi inamla təmin edərək BTC-nin praktik şəkildə gerçəkləşməsinə nail oldu. 2005-ci il mayın 25-də kəmərin Azərbaycan, oktyabrın 12-də isə Gürcüstan hissəsinin neftlə doldurulması ilə bağlı təntənəli mərasimlər keçirildi. 2006-cı il mayın 28-də Azərbaycan neftinin Türkiyənin Ceyhan terminalına çatması isə respublikamız üçün rəmzi səciyyə daşıyan mühüm hadisəyə çevrildi. Nəhayət, 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan terminalında hər üç dövlətin prezidentlərinin iştirakıyla BTC-nin tam istismara verilməsi ilə bağlı təntənəli tədbir təşkil olundu. Beləliklə, kimlərinsə bir vaxtlar əfsanə hesab etdiyi bu strateji layihə "Əsrin müqaviləsi"nin imzalanmasının 12-ci ildönümü ərəfəsində

gerçəkliyə çevrildi. Dövlət başçısı İlham Əliyevin həmin mərasimdə bəyan etdiyi kimi, bu kəmər məhz ulu öndər Heydər Əliyevin iradəsi və qətiyyəti sayəsində gerçəkləşmişdir: "Hamımız xatırlayırıq ki, bu nəhəng transmilli layihənin təməli 1994-cü ildə Bakıda – "Əsrin müqaviləsi"nin imzalanması ilə başlanmışdır. Məhz o ağır, çətin dövrdə Azərbaycan rəhbərliyinin qətiyyəti və uzaqgörənliyi nəticəsində "Əsrin müqaviləsi" imzalandı və bundan sonra bütün məsələlər öz həllini tapdı. Yeni kəmərlər tikildi, yeni neft infrastrukturu yaradıldı. O illər Azərbaycanda çox böyük təlatüm müşahidə olunurdu, Azərbaycana ciddi təzyiqlər edilirdi. Bakı-Tbilisi-Geyhan neft kəmərinin yaranmasını istəməyən qüvvələr müxtəlif təzyiqlər göstərirdi. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan rəhbərliyinin, xalqımızın ümummilli lideri Heydər Əliyevin qətiyyəti, cəsarəti, Azərbaycan xalqının dəstəyi bizə imkan verdi ki, ölkəmiz öz zəngin neft, qaz yataqlarını işə sala bilsin və bu gün bizim təbii ehtiyatlarımız dünya bazarlarına çıxarılır".

Son 10 ildə ölkədə uğurla gerçəkləşdirilən yeni neft strategiyası nəticəsində Azərbaycan bölgədə hansısa ölkədən enerji asılılığı olmayan, tələbatını daxili imkanlar hesabına ödəməyə qadir yeganə respublika kimi çıxış edir. 2006-cı ildə əfsanədən gerçəkliyə qovuşan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri dünya əhəmiyyətli strateji layihələr olmaqla, nəinki respublikamızın, bütövlükdə Avropanın fasiləsiz enerji ilə təminatına geniş imkanlar açır. Respublikanın yalnız "Şahdəniz" yatağındakı qaz ehtiyatları 1 trilyon 200 milyard kubmetrdən çox qiymətləndirilir. 2012-ci ilədək bu yataqdan ildə təxminən 8,4 milyard kub metr qaz və gündə 40 min barel kondensat (neftlə qazın qarışığı) çıxarılması gözlənilir. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin reallaşması da məhz bu yatağın işə salınması nəticəsində mümkün olmuşdur. 2007-cı ilədək Rusiyadan qaz idxal edən Azərbaycan son 2 ildə məhz "Şahdəniz" yatağından hasil olunan təbii qaz hesabına nəinki öz tələbatını ödəmək, hətta mavi yanacağını Avropa bazarlarına çıxarmaq imkanı qazanmışdır.

Bu gün Azərbaycan Türkiyə və Gürcüstanın mavi yanacağa olan tələbatının əhəmiyyətli qismini ödəyir. Xatırladaq ki, 2006-cı ilin dekabrında Gürcüstanın Baş nazirinin başçılıq etdiyi nümayəndə heyətinin Bakıya səfəri zamanı Azərbaycan hökuməti qonşu dövlətə mavi yanacaq satışına razılıq vermiş və bununla əlaqədar ikitərəfli saziş imzalanmışdır. Gürcüstanın dövlət başçısı M. Saakaşvili Azərbaycan Prezidenti İlham Əliyevin bu qətiyyətli qərarını alqışlamış və qəhrəmanlıq nümunəsi kimi qiymətləndirmişdir.

Respublikamız neft kəmərlərini şaxələndirilməsi siyasətini həyata keçirir və bu da ölkənin enerji təhlükəsizliyinin daha səmərəli təşkilinə xidmət edir. Hazırda Azərbaycan nefti üç kəmər – Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa və Bakı-Novorossiysk xətti vasitəsilə Avropa bazarlarına çıxarılır. Növbəti layihə kimi Odessa-Brodı-Plotsk-Qdansk marşrutunun reallaşdırılması nəzərdə tutulur. Bu məqsədlə "Sarmatiya" adlı müştərək şirkətin təsis edilməsi də prosesin yaxın perspektivdə sürətlənəcəyinə işarədir. Hazırda şirkət layihənin texniki-iqtisadi əsaslandırma işlərini həyata keçirir. Bu layihə Xəzər dənizi-Qara dəniz-Baltik dənizi regionlarında yerləşən dövlətlər arasında səmərəli regional əməkdaşlığı daha da möhkəmləndirəcəkdir.

İstehsal etdiyi xam nefti Qərb bazarlarına ixrac edən Azərbaycan qısa müddətdə böyük iqtisadi dividendlərə nail olmuşdur. Neft gəlirlərinin iqtisadiyyatın digər vacib sahələrinə, xüsusən də qeyri-neft sektoruna, istehsal sahibkarlığına yönəldilməsi, yeni müəssisələrin açılması yolu ilə işsizlik probleminin aradan qaldırılması, bir sözlə, əhalinin sosial müdafiə tədbirlərinin gücləndirilməsi Prezident İlham Əliyevin son illərdə hökumət qarşısında müəyyənləşdirdiyi mühüm vəzifələrdəndir. Dövlət başçısının işlək mexanizmlər üzərində gerçəkləşdirdiyi uğurlu sosial-iqtisadi islahatların nəticəsi olaraq bu gün Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilmişdir. 2009-cu ildə dövlət büdcəsinin 2003-cü ildəki 1,2 milyard dollardan 10 milyard manata yüksəlməsi, respublikamızın valyuta ehtiyatlarının Dövlət Neft Fondunda toplanan vəsaitlərlə birgə 18 milyard dollara çatması ulu öndər Heydər Əliyev tərəfindən bünövrəsi qoyulmuş sosial-iqtisadi inkişaf strategiyasının uğurlu nəticələri kimi dəyərləndirilməlidir.

Azərbaycan Prezidenti İlham Əliyev iqtisadiyyatın birqütblü inkişafını yolverilməz sayaraq respublikanın neft gəlirlərindən asılılığının aradan qaldırılması istiqamətində ardıcıl addımlar atır. Dövlət başçısı iqtisadi inkişafa yalnız neft amili hesabına nail olmağı məqbul saymır, tarazlı və davamlı tərəqqi naminə qeyri-neft sektoruna xüsusi diqqət yetirilməsi vacibliyini önə çəkir. "Biz öz siyasətimizi elə aparmalıyıq ki, guya Azərbaycanda neft yoxdur. İqtisadiyyatın bütün sahələrində və ilk növbədə, qeyri-neft sektorunda mövcud strukturlar inkişaf etdirilməlidir. Biz yalnız bu yolla Azərbaycanı hərtərəfli inkişaf etmiş dövlətə çevirə bilərik", – deyən dövlət başçısı neft gəlirlərini digər strateji sahələrə yönəltməklə qeyri-neft sektorunun, istehsal sahibkarlığının, sənayenin inkişafına, infrastrukturun müasirləşməsinə çalışır. Bu siyasət neftdən asılılığı azaltmaqla ölkədəki dinamik iqtisadi inkişaf tempini sabit saxlamağa imkan verən fundamental əsasların yaradılmasını nəzərdə tutur. Prezident İlham Əliyev bu əvəzsiz təbii sərvətin ixracından qazanılan böyük vəsaitlərin, ilk növbədə, insan faktorunun inkişafına yönəldilməsini, elmi-texniki tərəqqinin son nailiyyətlərinin tətbiqi yolu ilə dayanıqlı milli inkişafın təmin edilməsini zəruri sayır.

Dövlət başçısı hələ 24 noyabr 2003-cü il tarixdə imzaladığı "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanda neft gəlirlərindən düzgün istifadəni nəzərdə tutan uzunmüddətli strategiyanın hazırlanmasını mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Bu strategiyada neftdən qazanılan vəsaitlərin qeyri-neft sektorunda, regionların, kiçik və orta sahibkarlığın inkişafında, infrastruktur sahələrin genişmiqyaslı inkişafında, yoxsulluğun azaldılması üzrə tədbirlərin həyata keçirilməsində, "insan kapitalı"nın formalaşmasında, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsində və digər bu kimi istiqamətlərdə istifadə olunması nəzərdə tutulmuşdur.

Hazırda dünyanı sarsıdan qlobal böhran, habelə neftin qiymətlərinin 4 dəfəyədək aşağı düşməsi cənab İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin düzgünlüyünü bir daha təsdiqləyir. Nazirlər Kabinetinin 2009-cu ilin birinci yarısının yekunlarına həsr olunmuş iclasında Azərbaycan iqtisadiyyatının bütün sahələrdə sürətli inkişaf etdiyini və neftdən asılılığının tədricən aradan qaldırıldığını dövlət başçısı İlham Əliyev xüsusi diqqətə çəkmişdir. "Bizim uğurlarımızı bəzi bədxahlar, yaxud da ki, bizdə olan vəziyyəti yaxından bilməyən, ya da ki, hansısa paxıllıq hissləri ilə yaşayan insanlar bəzi hallarda neft amilinə bağlamaq istəyirlər. Əlbəttə ki, Azərbaycanın uğurlu neft strategiyası ölkə iqtisadiyyatının inkişafında çox böyük rol oynamışdır. Bu rol davam edir və gələcəkdə də davam edəcəkdir. Bizim enerji siyasətimiz ölkəmizə çox böyük fayda gətiribdir. Bütün uğurlarımızı ancaq neft amili ilə bağlamaq tamamilə yanlış bir yanaşmadır. Neft və qaz hasil edən ölkələr kifayət qədər çoxdur. Bizim bölgədə – Xəzər hövzəsində yerləşən ölkələrin neft-qaz potensialı Azərbaycandakından bir neçə dəfə böyükdür və hasilat da bir neçə dəfə çoxdur. Ona görə bizim uğurlarımızı ancaq neft-qaz amili ilə bağlamaq, əlbəttə ki, tamamilə qəbuledilməzdir. Bizim iqtisadi uğurlarımızın təməlində düşünülmüş siyasət dayanır, ölkənin milli maraqlarının qorunması dayanır, siyasi islahatlar, demokratik proseslər dayanır, iqtisadi islahatlar dayanır və bütün bunları görməmək mümkün deyildir", – deyən dövlət başçısı İlham Əliyev həmçinin vurğulamışdır ki, Dünya Bankının 2008-ci ilin yekunlarına görə, Azərbaycanı bir nömrəli "islahatçı ölkə" elan etməsi ölkədə həyata keçirilən siyasətin düzgünlüyünü və uğurunu bir daha təsdiqləyir.

Bir sıra dünya ölkələrinin iqtisadiyyatının qlobal maliyyə böhranı ilə əlaqədar ciddi böhran keçirməsinə rəğmən, 2009-cu ildə Azərbaycanın bir sıra mühüm nailiyyətlərə imza atması və makroiqtisadi sabitliyin qorunub saxlanılması dövlət rəhbərinin həyata keçirdiyi inkişaf strategiyasının uğurlu nəticəsi kimi yadda qalmışdır. Sosialyönümlü mahiyyət daşıyan bu inkişaf strategiyası iqtisadi yüksəliş prosesində yeni keyfiyyət göstəricilərinin əldə olunması, qeyri-neft sektorunun inkişafı yolu ilə regionların tarazlı və davamlı tərəqqisinin sürətləndirilməsi, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması, faydalı məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin açılması üçün milli sahibkarlığın hərtərəfli dəstəklənməsi, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunun gücləndirilməsi kimi vacib məqamları özündə ehtiva etmişdir. Yeni neft strategiyasının uğurla davam etdirilməsi, Azərbaycanın xarici sərmayələr üçün cəlbediciliyinin qorunması və milli iqtisadiyyatın müxtəlif sferalarına yönələn sərmayələrin qeyri-neft sektoruna, regionların inkişafına doğru istiqamətləndirilməsi, sahibkarlıq fəaliyyətinə mane olan süni əngəllərin aradan qaldırılması, sənayenin və kənd təsərrüfatının stimullaşdırılması, ərzaq təhlükəsizliyinin təmini də hökumətin ötən ildəki iqtisadi siyasətinin prioritet istiqamətlərini təşkil etmişdir.

Regionlara göstərilən diqqət nəticəsində ötən beş ildə sənaye istehsalı 3,7, investisiyalar 2,4, strateji valyuta ehtiyatları 9,8, ümumi daxili məhsulda qeyri-neft sektorunun payı 1,7, qeyri-neft məhsullarının ixracı 2,2, orta aylıq əməkhaqqı 2,7, pensiyaların orta aylıq məbləği 4 dəfə artmış, yoxsulluğun səviyyəsi 2003-cü ildəki 49 faizdən 13,2 faizə enmişdir.

Nazirlər Kabinetinin 2009-cu ilin birinci yarısının sosial-iqtisadi yekunları göstərdi ki, Azərbaycan Prezidenti İlham Əliyev 2009-cı ilin 6 ayında da sosial liberalizm xəttinə sadiq qalmış, qlobal böhranın vətəndaşların mənafeyinə ziyan vurmaması üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. Ümumilikdə, sosial məsələlərin həlli hökumətin son illərdəki fəaliyyətinin başlıca məqsədinə çevrilmiş, dövlət büdcəsindən bu məqsədlə vəsaitlərin ildən-ilə artırılması müşahidə edilmişdir. Yürüdülən siyasət elmi əsaslara söykəndiyindən, bazar iqtisadiyyatı prinsiplərinin cəmiyyətdə özünə geniş dayaqlar tapması, özəl sektorun inkişafına yaradılmış şərait, iqtisadiyyatın liberallaşdırılması sosial himayəyə ehtiyacı olan vətəndaşlarımızın maraqları ilə qətiyyən ziddiyyət təşkil etmir. Əksinə, ölkənin iqtisadi inkişafından, neft strategiyasının uğurlu nəticələrindən əldə edilən dividendlər insanların sosial problemlərinin həllinə, vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilir.

Bir çox dövlətlərdən fərqli olaraq, qlobal maliyyə böhranı respublikada aztəminatlı təbəqənin sosial rifah halına heç bir təsir göstərməmiş, əksinə, ərzaq malları üzrə inflyasiyanın cəmi 2,1 faiz olması fonunda əhalinin pul gəlirlərinin 19 faiz artması alıcılıq qabiliyyətinin yüksəlməsinə imkan yaratmışdır. Bu dövrdə əhalinin real gəlirlərinin artımı 15-16 faiz təşkil etmiş, orta aylıq əməkhaqqı 15 faiz artmışdır. Bundan əlavə,

regionların inkişafına xidmət edən tədbirlərin uğurla davam etdirilməsi nəticəsində respublikada 35 min yeni iş yeri açılmışdır və bunun da 25 mini daimidir.

Dövlətdən ünvanlı sosial yardım alan vətəndaşların sayının 800 minə çatması, orta hesabla hər ailəyə 100 manat məbləğində yardımın göstərilməsi, habelə ipoteka kreditləşməsinin bərpası da hökumətin sosialyönümlü siyasətinin bariz göstəricilərindəndir. Dövlət başçısı İlham Əliyevin Nazirlər Kabinetinin son iclasında vurğuladığı kimi, yoxsulluğun azaldılması istiqamətində tədbirlər bundan sonra da davam etdiriləcəkdir: "Bu böhran bir həqiqət anı idi. Kimin nəyə qadir olduğunu çox açıq şəkildə göstərdi. İlk növbədə onu göstərdi ki, Azərbaycan dövləti istənilən iqtisadi sınaqlardan şərəflə çıxa bilər və bu iqtisadi sınaqlar Azərbaycan əhalisinə heç bir təsir göstərməmişdir. Belə olan halda, sosial proqramların davam etdirilməsi ilə bağlı bütün lazımi tədbirlər görüləcəkdir. Yoxsulluğun azaldılmasına dair bu vaxta qədər görülən tədbirlər davam etdirilməlidir. Hələ ki demək tezdir, ancaq mən hesab edirəm ki, Azərbaycanda yoxsulluğun azaldılması meylləri davam etdirilməlidir. Sosial infrastrukturun yeniləşdirilməsi və tikintisi, xəstəxanaların, məktəblərin tikintisi və s. ilə bağlı proqramlar, büdcədə nəzərdə tutulmuş investisiya layihələri icra olunmalıdır".

*Azərbaycan Prezidenti İlham Əliyevin inamla gerçəkləşdirdiyi yeni neft strategiyasının nəticəsi olaraq müstəqil respublikamız nəinki enerji müstəqilliyini təmin etmiş, eyni zamanda, Avropanın enerji təhlükəsizliyinin başlıca təminatçılarından birinə çevrilmişdir. Bunun təzahürü kimi ölkəmizin dünya miqyasında geosiyasi önəmi və beynəlxalq nüfuzu yüksəlmişdir. Bu gün hər bir azərbaycanlı ürəkdən inanır ki, ölkədə həyata keçirilən neft siyasəti davamlı inkişaf və tərəqqi prosesini sürətləndirməklə Azərbaycanın iqtisadi cəhətdən daha da güclü dövlətə çevrilməsini təmin edəcəkdir.*

**"Azərbaycan**".-2009.-24 sentyabr.-N 211.-S.6.

# ÜMUMMİLLİ LİDER MÜSTƏQİL DÖVLƏTİMİZİN İLK KONSTİTUSİYASININ YARADICISIDIR

**İlham ABBASOV,**
Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının prorektoru-hüquq və
fəlsəfə elmləri doktoru, baş ədliyyə müşaviri, prokurorluğun fəxri işçisi.

Dövlətin əsaslarını, əsas insan və vətəndaş hüquqlarını, vəzifələrini, qanunvericilik, icra və məhkəmə hakimiyyətini, dövlət quruluşunu, mülkiyyət formalarını və dövlət həyatının digər bu kimi məsələlərini müəyyənləşdirən Konstitusiyanın qəbul edilməsi hər bir dövlətin həyatında mühüm ictimai-siyasi hadisədir. **Tarixi qanunauyğunluq nəticəsində keçmiş Sovetlər Birliyi süqut etdikdən sonra xalqımız öz milli müqəddəratını sərbəst təyin etmək, milli dövlət quruculuğunu formalaşdırmaq və hüquqi, demokratik cəmiyyət yaratmaq imkanı əldə etdi…**

Ümummilli lider Heydər Əliyevin imzaladığı “Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında” 30 yanvar 1998-ci il tarixli sərəncamında göstərilir: “…Bu tarixi gün Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi daxil olmuşdur. Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək, xalqımızın müstəqillik əzmini nümayiş etdirmişdir. Azərbaycan Xalq Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmişdir. Bu dövlətin qısa bir müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində böyük iz buraxmışdır”

17 aylıq fəaliyyəti dövründə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 145 iclası keçirilmişdir. İlk iclas 1918-ci il dekabrın 7-də, son iclas isə 1920-ci il aprelin 27-də olmuşdur. Fəaliyyəti dövründə Azərbaycan Cümhuriyyəti Parlamentinin müzakirəsinə 270-dən yuxarı qanun layihəsi çıxarılmışdır ki, onlardan da 230-a yaxını təsdiq edilmişdir. **Lakin Azərbaycan Xalq Cümhuriyyəti dövründə müstəqil respublikanın Konstitusiyasını qəbul etmək mümkün olmamışdı.**

**Ancaq cümhuriyyətin fəaliyyət göstərdiyi dövrdə Konstitusiya xarakteri daşıyan bir neçə aktlar, qərarlar qəbul edilmiş və hökumət onların əsasında işləmişdir. Ona görə də bu dövrü, müəyyən qədər Konstitusiya quruculuğunun başlanğıcı kimi qiymətləndirmək olar.**

Azərbaycan Xalq Cümhuriyyəti dövlətin zəruri atributu olan dövlət bayrağı haqqında, həmçinin dövlət dili haqqında qərarlar qəbul etmişdir.

Təəssüflər olsun ki, 1920-ci il aprelin 27-28-də RSFSR beynəlxalq hüquq normalarını kobudcasına pozaraq, müharibə elan etmədən öz silahlı qüvvələrini Azərbaycana yeritmiş, suveren Azərbaycan ərazisini işğal etmiş, qanuni seçilmiş hakimiyyət orqanlarını zorakılıqla devirərək Azərbaycan xalqının çox böyük qurbanlar bahasına qazandığı müstəqilliyinə son qoymuşdur.

**Azərbaycan xalqı yalnız 18 oktyabr 1991-ci ildə öz tarixi dövlət müstəqilliyini bərpa et-dikdən sonra Konstitusiyasını qəbul etmək imkanı əldə etdi.**

Ümummilli lider Heydər Əliyevin sədrliyilə layihəsi hazırlanmış və 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyasının qəbul edilməsi xalqımızın tarixində ən parlaq səhifələrdən biridir. Konstitusiyanın 158 maddəsindən 48-i, başqa sözlə, üçdə biri insan və vətəndaş hüquq və azadlıqlarına həsr edilmişdir.

**Müstəqil dövlətimizin ilk Konstitusiyası respublikamızın əvvəlki konstitusiyalarından prinsipcə köklü surətdə fərqlənir. Belə ki, əvvəlki sosializm dövrünün konstitusiyalarında sivil dövlət quruculuğunda əsas institut olan hakimiyyət bölgüsü prinsipindən imtina edilmişdi. Lakin yeni Konstitusiyada bu tarixi və metodoloji səhv aradan qaldırılmış, hakimiyyətin qanunverici, icra hakimiyyəti və məhkəmə hakimiyyətindən ibarət bölgüsü aparılmışdır.**

Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin IV hissəsində göstərilir ki, Konstitusiyanın müddəalarına əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər. Konstitusiya ən yüksək hüquqi qüvvəyə malik olmaqla, Azərbaycan Respublikasında birbaşa hüquqi qüvvədədir və bütün qanunvericilik aktları Konstitusiyanın müddəalarına uyğun qəbul edilməlidir. Təsadüfi deyildir ki, müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbulundan sonra Milli Məclis Avropa standartlarına və beynəlxalq hüquq normalarının tələblərinə uyğun 2500-dən artıq qanun və qərar qəbul etmişdir.

Dünya təcrübəsi göstərir ki, Konstitusiya bir qayda olaraq, uzun müddət üçün qəbul olunur. Lakin həyatın irəli sürdüyü tələblər, ictimai-siyasi münasibətlərin inkişafı qanunvericilikdə, o cümlədən ölkəmizin ali qanunu olan Konstitusiyada da dəyişiklikləri zəruri edir.

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə ümumxalq səsverməsi (referendum) keçirilməsi haqqında " 22 iyun 2002-ci il tarixli fərmanı ilə 24 avqust 2004-cü il tarixdə keçirilmiş referendum nəticəsində Konstitusiyanın 24 maddəsinə 38 əlavə və dəyişikliklər edilmişdir.**

**Ölkə başçısı cənab İlham Əliyev demişdir: "Azərbaycan artıq müasir ölkədir. Ancaq müasirləşmə prosesinin limiti, hüdudları yoxdur. Bu əbədi bir prosesdir. Bu gün Azərbaycan demokratik ölkədir. Amma demokratiyanın da sonu yoxdur. Bu sonsuz bir prosesdir. Biz növbəti illərdə ölkəmizin müasirləşməsi ilə** bağlı **əlavə tədbirlər görəcəyik".**

Məhz ölkəmizdə demokratiyanın daha da inkişafı məqsədilə Milli Məclis 26 dekabr 2008-ci il tarixdə "Azərbaycan Respublika-sının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsinə dair ümumxalq səsverməsinin (referendumun) keçirilməsi haqqında " qərar qəbul etmiş və 2009-cu il martın 18-nə referendum keçirilmişdir. Bu ilin martın 30-da Mərkəzi Seçki Komissiyası referendumun nəticələrinə yekun vurmuş və Konstitusiyaya əlavə və dəyişikliklər edilməsi haqqında referendum layihəsini qəbul edilmiş hesab etmişdir.

Mərkəzi Seçki Komissiyasının məlumatından görünür ki, seçicilərin 70,83 faizi referendumda iştirak etmiş və böyük əksəriyyəti

Konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərin lehinə səs vermişlər.

Konstitusiyanın 12-ci maddəsinin I bəndində göstərilirdi ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir.

Referendum aktının birinci bəndində Konstitusiyanın 12-ci maddəsinin I hissəsinə "azadlıq-larının" sözündən sonra "Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin " sözləri əlavə edilmiş, başqa sözlə, Konstitusiyanın 12-ci maddəsinin I hissəsinə edilmiş bu əlavə, əslində, onun məzmununu daha da zənginləşdirmişdir. Ölkəmizin son beş ildəki iqtisadi inkişafının xarakteri və tempi göstərir ki, sosial siyasət və əhalinin maddi rifahı büdcə xərclərinin xüsusi çəkisində üstünlük təşkil edir.

Məhz buna görə də Konstitusiyanın 15-ci maddəsinin II hissəsinə "əsasında" sözündən sonra "sosial yönümlü " sözləri əlavə edilmiş və bu da son illərdə respublika büdcəsinin sosial xarakterli olmasının əyani təsdiqidir.

Təsadüfi deyil ki, Konstitusiyaya edilmiş 11 dəyişikliyin, 39 əlavənin, müvafiq olaraq, 5 dəyişikliyi və 22 əlavəsi Konstitusiyanın III fəslinə-Əsas insan və vətəndaş hüquqları və azadlıqları fəslinə aid olmuşdur.

Müstəqil dövlətimizin ilk Konstitusiyasının 17-ci maddəsinə aşağıdakı məzmunda V hissə əlavə edilmişdir: "15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər". Doğrudur, ilk baxışda belə görünə bilər ki, bu müddəa əmək qanunvericiliyinin müvafiq normasında nəzərdə tutulmuşdur (Əmək Məcəlləsinin 46-cı maddəsinin 4-cü bəndində), bu müddəanın təkrarən Konstitusiyaya daxil edilməsinə zərurət vardırmı ?!. Cavab birmənalıdır: bəli, vardır.

**15 yaşına çatmamış uşaqların işə götürülməsinin qadağan edilməsi Konstitusiyada nəzərdə tutulmaqla, yeni xarakter alır, başqa sözlə, konstitusion prinsip kimi formalaşır və nəzərə alsaq ki, Konstitusiyanın müddəaları birbaşa hüquqi qüvvəyə malikdir, əgər əmək qanunvericiliyi dəyişilsə belə, Azərbaycan Respublikası Milli Məclisinin bu konstitusion müddəanı dəyişmək səlahiyyəti yoxdur.**

**Konstitusiyanın 71-ci maddəsinə aşağıdakı məzmunda X bənd əlavə edilmişdir: "Dövlət orqanları yalnız bu Konstitusiya əsasında, qanunla müəyyən edilmiş qaydada və hüquqlarda fəaliyyət göstərə bilərlər ". Konstitusiyaya edilmiş bu əlavə isə cəmiyyətdə baş verə biləcək məmur özbaşınalığının qarşısını almaq, mahiyyət etibarilə, ölkəmizdə insan və vətəndaş hüquq və azadlıq-larının daha etibarlı qorunması üçün əlavə bir təminatdır.**

Həmçinin Konstitusiyanın 67-ci maddəsinə "Cinayət törədilməsində təqsirləndirilən hər kəs məhkum edilməzdən əvvəl dinlənilməlidir" kimi II bənd əlavə edilmişdir. Konstitusiyaya belə bir müddəanın əlavə edilməsi bu müddəanın konstitusion prinsip kimi formalaşmasına gətirib çıxarır və gələcəkdə cinayət-prosessual qanunvericiliyində hər hansı dəyişikliyin edilməsi bu konstitusion prinsipin dəyişilməsinə səbəb ola bilməz. Əksinə, gələcək-də cinayət-prosessual qanunvericiliyinə ediləcək hər bir dəyişiklik bu konstitusion prinsip nəzərə alınmaqla edilə bilər. **Başqa sözlə, cinayət-prosessual qanunvericiliyinə sözügedən konstitusion prinsipə zidd dəyişikliyin edilməsinin qarşısı alınmış olur.**

Konstitusiyaya edilmiş əlavə və dəyişikliklərdən biri Konstitusiyanın 101-ci maddəsi ilə bağlıdır. Referendum aktında Konstitusiyanın 101-ci maddəsinin V hissəsi aşağıdakı redaksiyada ifadə edilmişdir: "Müharibə şəraitində hərbi əməliyyatların aparılması Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilmə-sini mümkün etmədikdə Azərbaycan Respublikası Prezidentinin səlahiyyət müddəti hərbi əməliyyatların sonunadək uzadılır. Bu barədə qərar seçkilərin (referendumun) keçirilməsini təmin edən dövlət orqanının müraciətinə əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən qəbul edilir ".

**Hazırda müstəqil Azərbaycan Respublikasının əsas problemlərindən biri qondarma Dağlıq Qarabağ məsələsidir. Erməni təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal edilərək, 900 yaşayış məntəqəsi zəbt edilmiş, 4366 sosial obyekt, 690 məktəb, 280 uşaq bağçası, 862 klub, 932 kitabxana, 1831 kino qurğusu, 855 məktəbəqədər müəssisə, 656 poliklinika, ambulatoriya, aptek və digər tibb müəssisə-si, xalqın ibadət yeri olan 10 məscid dağıdılmış, Ermənistandan qovulmuş soydaşlarımızın 380 kəndi ələ keçirilmiş və bütün var-dövləti orada qalmışdır. Respublikamıza təxminən 60 milyard ABŞ dollarından artıq məbləğində ziyan dəymişdir.**

Ümummilli lider Heydər Əliyev 15 iyun 1993-cü ildə hakimiyyətə qayıdışından sonra bütün fəaliyyəti boyu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsini sülh yolu ilə, beynəlxalq hüquq normalarına uyğun ədalətli həllinə çalışmışdır. Lakin heç kəsdən gizli deyildir ki, dünyada ikili standartlar mövcuddur. Əgər belə olmasaydı, dünyanın 191 ölkəsinin daxil olduğu Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının işğal olunmuş Azərbaycan ərazilərindən işğalçı erməni silahlı qüvvələrinin dərhal çıxarılması barədə 4 qətnaməsi çoxdan icra olunardı.

Ümummilli lider Heydər Əliyev ölkə rəhbərliyinə qayıdışından sonra xarici ölkələrə səfərlərində Qarabağ həqiqətlərini bütün dünya ictimaiyyətinə olduğu kimi çatdırmaq üçün var qüvvəsi ilə çalışmışdır. Ümummilli lider bu səfərlərdə, istər dövlət başçıları ilə, istərsə də həmin ölkələrdə olan Azərbaycan diasporunun nümayəndələri ilə, iş adamları ilə, qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə, bir sözlə, bütün auditoriyalarda xəritə ilə əyani surətdə Dağlıq Qarabağın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olması fikrini əsaslandırmış və buna da nail olmuşdur.

Təsadüfi deyildir ki, BMT Baş Məclisinin 6 sentyabr 2006-cı il tarixli "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnaməsində Azərbaycanın işğal edilmiş ərazilərində baş verən yanğınlardan və onun vurduğu böyük ekoloji ziyandan ciddi narahatlığı vurğulanmışdır.

**Ölkə başçısı cənab İlham Əliyev çıxışlarında dəfələrlə bəyan etmişdir ki, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazilərinin bütövlüyü çərçivəsində həll edilə bilər: "Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır və biz Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün bütün səyləri göstərəcəyik. Həm siyasi, həm diplomatik və lazım gələrsə, hərbi üsullardan da istifadə etmək olar. Bu haqq bizdə var. Beynəlxalq hüquq bunu təmin edir ".**

Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın, beynəlxalq hüquq normalarına müvafiq olaraq, dinc yolla erməni işğalından azad edilməsi mümkün olmazsa, bu torpaqların silah gücünə azad edilməsi bizim təbii, ayrılmaz, konstitusion hüququmuzdur.

Beləliklə, yuxarıdakılara əsasən demək olar ki, Konstitusiyanın 101-ci maddəsinin V hissəsinin yeni redaksiyada verilməsi barədə dəyişikliyin edilməsi əsaslı olmaqla, ölkəmizin indiki şəraiti üçün son dərəcədə zəruridir.

**Həmin fikirlər Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyət müddətinin hərbi əməliyyatların sonunadək uzadılması barədə referendum aktına əsasən Konstitusiyanın 84-cü maddəsinin I hissəsinə edilmiş əlavəyə də aiddir.**

**Ümummilli lider Heydər Əliyevin idarəçilik məktəbinin layiqli davamçısı, onun müdrik, uzaqgörən və çevik xarici və daxili siyasətini uğurla davam etdirən cənab ilham Əliyevin 15 oktyabr 2008-ci il tarixdə seçicilərin mütləq əksəriyyətinin səs çoxluğu ilə yenidən ölkə başçısı vəzifəsinə seçilməsi bizim gələcəyə inamımızı daha da artırır.**

**"Respublika".-**2009.- 10 noyabr.-N 245.-S.5.

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN BÖYÜK UĞURLA REALLAŞDIRILAN İQTİSADİ STRATEGİYASININ BANİSİDİR

**İSA ALIYEV,**
AMEA İqtisadiyyat İnstitutunun direktoru, iqtisad elmləri doktoru, professor,
**AQİL ƏSƏDOV,**
institutun aparıcı elmi işçisi, iqtisad elmləri namizədi

**Heydər Əliyevin dünya siyasətinin ən aparıcı simalarından biri kimi nadir insan olduğunu onun qərəzli opponentləri belə etiraf edirdilər. Ulu öndərin idarəçilik qabiliyyətindən, dövlətçilik dərslərindən, eləcə də Azərbaycan dövləti və xalqı üçün çəkdiyi zəhmətlərdən söhbət açmaq bütöv bir tarixi mərhələyə işıq tutmaq, yüksək praktiki əhəmiyyətə malik dəqiq və konkret elmi-nəzəri fikirlərə əsaslanan bir təlimdən bəhs etmək kimi məsuliyyətli bir işdir. Zəka və müdrikliyi, öz millətinə və vətəninə olan sevgisi ilə bəşər övladını heyrətə gətirən ümummilli lider Heydər Əliyevin zəngin dühası qiymətli fikir və hikmət xəzinəsi idi.**

Etiraf etməliyik ki, taleyi Heydər Əliyevin taleyi kimi xalqının, millətinin, dövlətinin taleyi ilə bu qədər yaxından bağlı olan ikinci bir dövlət başçısı təsəvvür etmək, doğrudan da çətindir. Başqa sözlə desək, fitri idarəetmə istedadı, iti fəhm və dərin zəka, siyasi uzaqgörənlik və müdriklik, fenomenal yaddaş və dəmir məntiq, böyük vətənpərvərlik və yüksək humanizm, qətiyyət və cəsarət, şəfqət və comərdlik kimi xüsusiyyətləri özündə cəmləşdirən ümummilli lider Heydər Əliyev üçün dövlətçilik və Azərbaycançılıq ideyaları hər şeydən üstün idi. O, xalqına, vətəninə ürəkdən bağlı idi və dəfələrlə də bunu istər çıxışlarında, istərsə də fəaliyyətində sübut etmişdir. Hələ 1990-cı ilin yazında “İstəyirəm ki, xalqımız mütəşəkkil olsun, milli qürur hissi daha da güclənsin, tariximizi sevək, Vətən qarşısında xidməti olan insanların qədrini bilək” söyləyən dahi Heydər Əliyevin ən əsas arzusu xalqın birliyinə, bütün azərbaycanlıların həmrəyliyinə söykənən qüdrətli milli dövlətin yaradılması olmuşdur. Məhz bu arzu ilə də ümummilli lider Heydər Əliyev Azərbaycanda müstəqil dövlətçiliyin əsaslarını, bunun ən vacib şərtlərindən olan qanunvericiliyin, demokratik seçkilərin presedentini yaratdı, Milli Ordu quruculuğuna real impuls verdi.

Xalqımızın yenilməz oğlu Heydər Əliyev təkcə yaşadığı günlər, illər barədə yox, daim parlaq, xoşbəxt sabahlar barədə düşünən lider idi. Ona görə də ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanda həyat səviyyəsinin yüksəldilməsi, iqtisadiyyatın ayrı-ayrı sahələrində rəqabət qabiliyyətli məhsullar istehsal edilməsi, mövcud resurslardan daha səmərəli istifadə olunması və beləliklə də Azərbaycanın iqtisadi baxımdan dünyanın aparıcı dövlətlərindən birinə çevrilməsi üçün lazım olan hər bir tədbiri həyata keçirir, mümkün olanı edirdi. Bu yerdə hörmətli akademik Ramiz Mehdiyevin “Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr” əsərindən aşağıdakı fikirləri yada salmaq yerinə düşərdi: “1969-cu il Azərbaycanın dövrü tarixində yeni dönüş ili oldu. Respublikamızın dinamik inkişafının təmin edilməsinə dair kompleks proqramlar işlənib hazırlandı. Bu yorulmaz fəaliyyət nəticəsində 1970-1985-ci illər ərzində baş vermiş dəyişikliklərin vüsəti, rifahın keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi baxımından, sözün tam mənasında, müstəqil Azərbaycanın yaranması salnaməsində ən parlaq səhifədir. Həmin illərdə Heydər Əliyevin təşəbbüsü ilə SSRİ hökuməti respublika iqtisadiyyatının hərtərəfli tərəqqisi və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərar qəbul etmişdi. Sosial-iqtisadi inkişafın başlıca istiqamətlərini müəyyən edən həmin qərarların xalqımızın mənafeyi baxımından tarixi əhəmiyyəti vardı. Tam inamla demək lazımdır ki, indiki mərhələdə Azərbaycanın suverenliyi və iqtisadi müstəqilliyi, onun xarici iqtisadi əlaqələrinin müntəzəm surətdə genişlənməsi və dünya iqtisadiyyatına daha dərin inteqrasiyası prosesi hələ 1970-ci illərdə, 1980-ci illərin əvvəllərində təməli qoyulmuş potensiala əsaslanır”.

Bəli, məhz SSRİ dövründə qəbul edilmiş qərarların, həyata keçirilmiş tədbirlərin nəticəsi idi ki, ötən əsrin 70-ci illərində Azərbaycanda kənd təsərrüfatı sürətlə inkişaf etmiş, pambıqçılıq, taxılçılıq, üzümçülük sahələrində rekord göstəricilər qazanılmışdır. Bununla da insanların yaşayış şəraiti yaxşılaşmış, bir çox sosial problemlər həllini tapmış, ucqar kəndlərdə belə, əhalinin firavan yaşayışı təmin olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin xalqın iradəsi və çağırışı ilə 1993-cü ildə yenidən hakimiyyətə qayıdışı Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoydu. Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını labüd fəlakətdən, hərc-mərclikdən xilas edən dahi rəhbər ölkənin iqtisadi yüksəlişi üçün də təcili tədbirlər görməyə başladı. İttifaq səviyyəsində mövcud olan iqtisadi əlaqələr dağıldıqdan sonra milli iqtisadiyyatın dirçəldilməsi üçün ölkənin malik olduğu təbii resurslardan istifadə və milli məhsulların xarici bazarlara çıxışının təmin edilməsi mühüm əhəmiyyət kəsb edirdi. Məhz belə bir dövrdə,

Azərbaycanın zəngin neft ehtiyatlarının mövcudluğunu nəzərə alan ümummilli lider Heydər Əliyev ilk vaxtlardan başlayaraq danışıqlar prosesinə ARDNŞ-in vitse-prezidenti, millət vəkili İlham Əliyevi də cəlb etdi. Beləliklə, cənab İlham Əliyev yeni neft strategiyasının hazırlanmasının və uğurla həyata keçirilməsinin ən fəal iştirakçılarından oldu. Onun bütün fəaliyyətinin mərkəzində özünün dəfələrlə vurğuladığı bir ideya dururdu: "Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyildir. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir".

Hamımıza məlumdur ki, 20 sentyabr 1994-cü ildə Bakı şəhərində Xəzər dənizinin Azərbaycana aid sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə istismarı ilə bağlı neft hasilatı üzrə ixtisaslaşmış, yüksək nüfuza malik dünya dövlətlərini təmsil edən 12 iri neft şirkəti arasında beynəlxalq müqavilə imzalanmışdır ki, bununla da yeni neft strategiyasının uğurla həyata keçirilməsinin əsası qoyulmuşdur. Ölkəmizin iqtisadi inkişafında əvəzsiz rol oynayan və sonradan "Əsrin müqaviləsi" adlandırılan bu iri layihə üzrə ilkin neft 12 noyabr 1997-ci ildə hasil edilməyə başlandı. Təqribən 730 milyon ton neft və 200 milyard kubmetrə yaxın təbii qaz ehtiyatına malik olan yataqlarda görüləcək işlərə 12-14 milyard ABŞ dollarına yaxın investisiya qoyuluşu nəzərdə tutulurdu ki, bu da müstəqilliyini yenicə əldə etmiş Azərbaycan Respublikası üçün çox vacib məsələ idi.

"Əsrin müqaviləsi" üzrə hasil edilən Azərbaycan neftinin dünya bazarlarına ixracı üçün ilkin dövrlərdə Bakı-Novorossiysk və Bakı-Supsa neft boru kəmərlərindən istifadə olunurdu. Lakin yaxın illərdə müqaviləyə daxil olan yataqlar üzrə illik hasilatın 50 milyon tona çatdırılacağını nəzərə alan ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə daha böyük nəqletmə imkanına malik ixrac marşrutları araşdırıldı və optimal variant kimi Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri seçildi. Məhz buna görə də layihənin həyata keçirilməsində fenomen siyasətçi Heydər Əliyevin əvəzsiz xidmətlərini nəzərə alan layihə iştirakçıları 2004-cü ildə BTC əsas ixrac boru kəmərinə Heydər Əliyevin adının verilməsi barədə qərar qəbul etdilər. Onu da qeyd edək ki, "Əsrin müqaviləsi" üzrə ilkin neftin hasilatına başlandığı 1997-ci ilin noyabrından bu günə qədər 50 milyon tona yaxın xam neft hasil edilərək öz alıcılarına çatdırılmışdır.

Bütün bu işlərin əsas məqsədi SSRİ-nin süqutundan sonra iflic vəziyyətə düşmüş Azərbaycan iqtisadiyyatını dirçəltmək, dünya iqtisadiyyatına daha geniş inteqrasiya etməklə beynəlxalq aləmdə ölkənin nüfuzunu artırmaq və doğma Azərbaycan dövlətini dünyəvi bir dövlətə çevirməkdən ibarət idi. Bu yerdə ümummilli lider Heydər Əliyevin "Əsrin müqaviləsi"nin 5 illik yubileyi ilə əlaqədar keçirilən tədbirdə söylədiyi aşağıdakı fikirləri xatırlatmaq yerinə düşərdi: "Biz ölkəmizi iqtisadi cəhətdən inkişaf edən ölkə etmək istəyirik. Biz ölkəmizin vətəndaşlarına firavan həyat yaratmaq istəyirik. Biz müstəqil dövlət kimi daim yaşamaq istəyirik. Bütün bu işlər – təkcə neft sahəsində deyil, Azərbaycanın iqtisadiyyatının, həyatının bütün başqa sahələrində də gördüyümüz işlər məhz bu məqsədi daşıyır".

"Əsrin müqaviləsi"nin ilk günlərindən başlayaraq Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradıldı və təsdiq olunmuş vahid proqram üzrə ARDNŞ ilə birgə işlərə başlandı. Bu saziş sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 26 sazişin də imzalanmasına şərait yaratdı. İmzalanmış neft sazişləri üzrə Azərbaycanın neft sənayesinin inkişafı üçün nəzərdə tutulmuş 64 milyard ABŞ dolları vəsait qoyuluşunun 57,6 milyardı dəniz yataqlarının mənimsənilməsinə və perspektivli strukturlarda axtarış-kəşfiyyat işlərinin aparılmasına yönəldilmişdir. Ümumiyyətlə, "Əsrin müqaviləsi"nin həyata keçirilməsi ilə Azərbaycan iqtisadiyyatında dönüş yarandı, böyük işlərə və iri layihələrə start verildi. 1999-cu ilin dekabrında Azərbaycan nefti ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarıldı və artıq 2005-ci il yanvar ayının birinə belə tankerlərin sayı 39-a, daşınılan neftin miqdarı isə 5,16 milyon tona çatmışdır. Bu neftin satışından əldə edilən valyuta ümummilli lideri Heydər Əliyev tərəfindən yaradılmış Azərbaycan Respublikası Dövlət Neft Fondunda toplanaraq ölkənin taleyüklü məsələlərinin həllinə və sosial problemlərin aradan qaldırılmasına yönəldilirdi.

Bu dövrdə Azərbaycanın şimal istiqamətində uzunluğu 231 km olan neft kəməri bərpa və inşa edilmiş və ilk dəfə 25 oktyabr 1997-ci ildə Azərbaycan nefti Novorossiysk limanına (Rusiya Federasiyasına) nəql olunmuşdur. Paralel olaraq qərb istiqamətində uzunluğu 837 km olan Bakı-Supsa boru kəməri inşa edilərək, 17 aprel 1999-cu ildə istismara verilmişdir. Statistik araşdırmalardan aydın olur ki, 01.01.2005-ci ilə kimi qeyd edilən kəmərlər üzrə 48,7 milyon ton neft dünya bazarlarına çıxarılmışdır. Eyni zamanda, 1997-ci ildə respublikada neft hasilatı 9 milyon ton olduğu halda, 2003-cü ildə bu göstərici 15,3 milyon tona bərabər olmuşdur. Ölkədə neft hasilatının ilbəil artımı yeni ixrac boru kəmərinin çəkilişini bir zərurətə çevirmişdi. Əvvəldə qeyd etdiyimiz kimi, bu istiqamətdə müxtəlif variantları nəzərdən keçirən dahi rəhbər Heydər Əliyev bütün iştirakçılar üçün səmərəli olan, ilk növbədə isə Azərbaycan dövlətinin və xalqının maraqlarına uyğun olan bir təşəbbüs irəli sürdü. Beləliklə 1999-cu ilin noyabrında Türkiyənin İstanbul şəhərində, ATƏT sammiti çərçivəsində keçirilən görüşdə ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan

prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin çəkilişi haqqında dövlətlərarası müqavilə imzalandı. 2002-ci il sentyabrın 18-də isə Bakıda, Səngəçal terminalında ümummilli lider Heydər Əliyevin, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməl daşı qoyuldu və kəmərin tikintisinə başlandı.

Hazırda ulu öndər Heydər Əliyevin adını daşıyan bu kəmər Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasına imkan verməklə yanaşı, həm də İpək yolunun və türkdilli ölkələrin əsas magistral kəməri statusunu qazanmışdır. Ümummilli liderin böyük siyasi iradəsinin təntənəsi olan Bakı-Tbilisi-Ceyhan kəməri neft kəmərləri sisteminə dünya "arteriya"sı kimi daxil olmuşdur. Onu da qeyd edək ki, minbir əziyyətlə başa gələn bu əsas ixrac neft kəmərinin texniki-iqtisadi əhəmiyyətindən başqa, onun siyasi rolu da danılmazdır. Belə ki, bu neft kəməri dünya dövlətləri ilə Azərbaycan dövlətinin yeni münasibətlərinin yaranmasına, dünya xalqları ilə əlaqələrinin yenidən qurulmasına təkan verərək, Azərbaycan dövlətinin xarici siyasətinin güclənməsinə, beynəlxalq aləmdə nüfuzunun artmasına, eləcə də onun siyasi və iqtisadi baxımdan inkişaf etməsinə səbəb olmuşdur. Bir sözlə, BTC təkcə Azərbaycan üçün deyil, ümumilikdə beynəlxalq aləmdə enerji təhlükəsizliyi sistemi və neft ixracı sahəsində ölkəmizlə uğurlu tərəfdaşlıq edən dövlətlər üçün müstəsna əhəmiyyət kəsb edən bir layihədir.

Bir neçə il öncə çoxlarının qeyri-real, xəyal kimi qəbul etdiyi bu layihə artıq bütün dünyanın qəbul etdiyi əzəmətli bir gerçəklikdir. Burada "Əsrin müqaviləsi"nin 10-cu ildönümündə ölkə başçısı cənab İlham Əliyevin səsləndirdiyi bir fikri yada salmaq yerinə düşərdi: ""Əsrin müqaviləsi" imzalanarkən bəziləri bunun uğuruna inanmırdı və hesab edirdilər ki, müqavilə elə kağız üzərində qalacaq. Çünki onun həyata keçirilməsi üçün təkcə iqtisadi deyil, eyni zamanda, siyasi və geosiyasi məsələlər öz həllini tapmalı idi. Heydər Əliyevin neft strategiyası və Heydər Əliyev diplomatiyası bunların həllini təmin etdi".

Zaman keçdikcə Heydər Əliyevin neft strategiyasının davamlı uğurları Azərbaycan dövlətinin dinamik iqtisadi tərəqqisinə çevrildi. Başqa sözlə desək, neft strategiyası əsas məqsədinə nail olmağa başladı. Çünki həyata keçirilən neft siyasətinin də əsasını, məhz ölkənin proporsional iqtisadi inkişafı, sosial problemlərin həlli, vətəndaş azadlığının və digər demokratik dəyərlərin təmin olunması təşkil edirdi. Bütün bunlar "Əsrin müqaviləsi"nin 10-cu ildönümündə dövlət başçısı tərəfindən bir daha vurğulanmışdır: "Biz iqtisadiyyatımızı şaxələndirməliyik ki, o, təkcə neft amilinə söykənməsin. Ölkəmizin hər bir bölgəsi inkişaf etməlidir. Bunun üçün çox geniş tədbirlər görülür. Neft Fondu çox şəffaf və açıq şəkildə fəaliyyət göstərir və onun ilk ödəmələri çətin vəziyyətdə yaşayan qaçqın və köçkünlərin sosial problemlərinin həllinə yönəldilib. Digər sosial məsələlərin həllinə də böyük diqqət göstərilir".

Bəli, Azərbaycan iqtisadiyyatı ümummilli lider Heydər Əliyevin yaratdığı təməl üzərində hərtərəfli və dinamik inkişaf edir. Bu gün, artıq ölkədə mühüm qlobal proqramlar, irimiqyaslı layihələr, müxtəlif sahələri əhatə edən çoxsaylı dövlət proqramları həyata keçirilməkdədir ki, bütün bunlar da ən ümdə məqsədə – Azərbaycan dövlətinin iqtisadi qüdrətinin, nüfuzunun daha da artmasına və beynəlxalq aləmdə ədalətli mövqeyinin təmin olunmasına xidmət edir.

Təbii ki, düşünülmüş, uzaqgörən siyasət olmadan iqtisadi sahədə, eləcə də əksinə güclü iqtisadi dayaqlar olmadan siyasi sahədə ciddi müvəffəqiyyətlər əldə etmək qeyri-mümkündür. Ümummilli lider Heydər Əliyevin, hər zaman aktual olan "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" sözləri yada düşür. Ölkənin iqtisadi qüdrətinin artmasında və Azərbaycanın dünyaya inteqrasiyasında müxtəlif nəqliyyat növlərini əhatə edən beynəlxalq və regional layihələrin əhəmiyyəti xüsusi qeyd edilməlidir. Bu layihələr dünya bazarlarına çıxışa imkan yaratmaqla, həm də ümumi iqtisadi inkişafa ciddi təkan verir. Çünki qloballaşma və iqtisadi inteqrasiya prosesləri ilə xarakterizə edilən müasir cəmiyyətin inkişafında ən mühüm amillərdən biri də dövlətlərarası əlaqələrin səviyyəsidir. Bu əlaqələr müxtəlif sahələrdə yarandığı üçün geniş çeşidlidir. Məlumdur ki, dünya dövlətlərinin inkişafına təkan verən, onların bir-birinə siyasi, iqtisadi, mədəni və s. cəhətdən inteqrasiyasına şərait yaradan əsas amillərdən biri də dövlətlərarası nəqliyyat əlaqələridir. Bu baxımdan beynəlxalq təşkilatların, xüsusilə Avropa Birliyi (AB) ölkələrinin dəstəyi ilə həyata keçirilən TRASEKA, TAE FO, INOGATE kimi iri regional proqramlarda Azərbaycan dövlətinin fəal iştirakı olduqca önəmlidir.

Konkret olaraq, Azərbaycan Respublikasının TRASEKA Proqramında iştirakı ölkəmiz üçün strateji əhəmiyyət kəsb edir. Çünki bu proqram Azərbaycanın Avropa ilə iqtisadi əlaqələrinin möhkəmləndirilməsi və genişləndirilməsi, dünya iqtisadiyyatına inteqrasiyası və beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün böyük imkanlar yaradır. Belə ki, keçən dövr ərzində TRASEKA proqramı çərçivəsində "Nəqliyyatın idarə edilməsinin treninqi", "Nəqliyyatın hüquqi və tənzimləyici çərçivəsi", "TRASEKA nəqliyyat dəhlizində vahid tarif siyasətinin tətbiqi", "Sərhəd-keçid prosedurаların sadələşdirilməsi ", "Qafqaz dəmir yollarının bərpası" və onlarla digər texniki yardım və investisiya layihələri həyata keçirilmişdir ki, bunlar da ayrı-ayrılıqda ölkəmizin nəqliyyat sisteminin, eləcə də ümumilikdə milli iqtisadiyyatın inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir.

Avropa ilə Asiyanı birləşdirən ən qısa nəqliyyat marşrutlarının kəsişməsində əlverişli geostrateji mövqedə yerləşən Azərbaycanın nəqliyyat sektorunun inkişafının ölkəmiz üçün müstəsna əhəmiyyət kəsb etdiyini dəqiqliklə qiymətləndirən ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 7-8 sentyabr 1998-ci il tarixlərində Bakı şəhərində Azərbaycan, Bolqarıstan, Gürcüstan, Qırğızıstan, Moldova, Rumıniya, Türkiyə, Özbəkistan, Ukraynadan ibarət 9 ölkənin dövlət başçısı, eləcə də 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirak etdiyi Tarixi İpək Yolunun bərpasına həsr olunmuş Beynəlxalq konfrans keçirilmiş, Avropa İttifaqının TRASEKA proqramı əsasında "Avropa – Qafqaz – Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanmış və Bakı Bəyannaməsi qəbul edilmişdir. Azərbaycan, Gürcüstan, Ermənistan, Bolqarıstan, Rumıniya, Moldova, Ukrayna, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Türkiyə də daxil olmaqla 12 dövlətin dövlət və hökumət başçıları tərəfindən tarixi əhəmiyyətə malik saziş imzalanmışdır.

1998-ci ildən keçən müddət ərzində respublikamızda TRASEKA proqramı çərçivəsində Əsas Çoxtərəfli Sazişin şərtlərinin reallaşması məqsədilə müxtəlif layihələr həyata keçirilmiş, nəqliyyat infrastrukturunun inkişafı istiqamətində mühüm işlər görülmüşdür. Belə ki, TRASEKA nəqliyyat dəhlizi üzrə yük axınının artırılması üçün son illər ərzində nəqliyyat sektorunun texniki təchizatının yaxşılaşdırılması sahəsində bir sıra tədbirlər görülmüş, avtomobil magistrallarının, dəmir yolu xətlərinin və körpülərin bərpası və tikintisi, dəmir yolu nəqliyyatı vasitələrinin, gəmilərin, bərələrin, liman qurğularının təmiri üzrə genişmiqyaslı işlər görülmüşdür.

Ümumiyyətlə, İpək Yolu tam gücü ilə istismara verildikdə 4-5 il müddətində böyük həcmdə gəlir götürülməsi proqnozlaşdırılır. Təbii ki, bu vəsaitin çox hissəsi dövlətin daxili siyasətinin tərkib hissəsi kimi yeni iş yerlərinin açılmasına, respublika iqtisadiyyatının, xüsusən qeyri-neft sektorunun inkişafına yönəldiləcək ki, bu da işsizlik probleminin aradan qaldırılmasına kömək edərək, əhalinin maddi rifahını yüksəltməklə yanaşı, "Yoxsulluğun aradan qaldırılması haqqında Dövlət Proqramı"na da öz töhfəsini verəcəkdir.

Hələ İpək Yolunun tam istifadəyə verilməməsinə baxmayaraq, bu layihənin müsbət cəhətləri nəzərə çarpmaqdadır. Belə ki, 1995-2000-ci illərdə respublika ərazisindən tranzit yük daşımaları 15 dəfə artaraq 355 min tondan 5,2 milyon tona çatmışdır. Statistik məlumatlara əsasən isə ümumiyyətlə yük daşımaların həcmi 1998-ci illə müqayisədə 1999-cu ildə 800 min ton artaraq 5 milyon tona çatmışdır. Başqa sözlə, 1999-cu ildə əvvəlki ilə nisbətən yük daşımaları 37,2 faiz, yük dövriyyəsi 39,5 faiz, müvafiq olaraq sərnişin daşımaları 10,45 faiz, sərnişin dövriyyəsi isə 17,03 faiz artmış və bunun müqabilində yükdaşımalardan 169 milyon manat, sərnişin daşımalardan isə 7,9 milyon manat çox gəlir əldə edilmişdir. Bu nailiyyətlər sonrakı dövrlərdə də davam etdirilmiş, eləcə də bütün nəqliyyat sistemini əhatə etmişdir ki, bunu statistik araşdırmalar da sübut edir. Belə ki, yalnız 2008-ci ilin doqquz ayı ərzində nəqliyyat müəssisələrində çalışan muzdlu işçilərin sayı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3 min nəfər artaraq 70,5 min nəfər təşkil etmişdir. Onların 83,4 faizi dövlət müəssisələrində, 16,6 faizi isə özəl bölmədə çalışır. İşçilərin 63,7 faizi quru yol, 13,4 faizi su, 6,5 faizi hava nəqliyyatı, 16,4 faizi isə köməkçi və əlavə nəqliyyat fəaliyyəti göstərən müəssisələrdə cəmləşmişdir.

Statistik məlumatlara əsasən nəqliyyatçıların orta aylıq əmək haqqı ötən ilin eyni dövrü ilə müqayisədə 31,2 faiz artaraq 300,5 manat olmuşdur. Bu göstərici hava nəqliyyatında 787,4 manat, dəniz nəqliyyatında 442,4 manat, avtomobil nəqliyyatında 328,3 manat, dəmir yolu nəqliyyatında isə 165,7 manat təşkil etmişdir. Əmək haqqının artımı hava nəqliyyatında 44,6 faiz, dəniz nəqliyyatında 23,4 faiz, avtomobil nəqliyyatında 40,2 faiz, dəmir yolu nəqliyyatında 26,5 faiz səviyyəsində olmuşdur. Eyni zamanda, araşdırmalardan aydın olur ki, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində 35,6 milyon ton və ya ötən ilin yanvar-sentyabr ayları ilə müqayisədə 2,4 faiz çox yük, 142,2 milyon nəfər və ya 6,4 faiz çox sərnişin daşınmışdır. Dəhliz üzrə yük daşınmasında dəmir yolu nəqliyyatı 55,3 faiz, avtomobil nəqliyyatı 31,2 faiz, dəniz nəqliyyatı 13,5 faiz paya malik olmuş, dəhlizdə bu nəqliyyat növləri ilə daşınmış yüklər ölkənin nəqliyyat sektorunda daşınmış bütün yüklərin 26,5 faizini təşkil etmişdir.

Ölkə ərazisindən ötürülmüş tranzit yüklərin həcmi 8,4 milyon ton təşkil etmiş, o cümlədən dəmir yolunda yük daşınmasının 23,2 faizi, dəniz nəqliyyatında isə 79,9 faizi tranzit yüklərin hesabına həyata keçirilmişdir. Dəhliz üzərində həyata keçirilmiş daşımalardan 195 milyon manat və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 12,5 faiz çox gəlir əldə edilmişdir. Gəlirlərin yaranmasında dəmir yolu nəqliyyatı daha çox – 62,8 faizlik paya malik olmuş, gəlirlərin qalan hissəsi -19,4 faizi avtomobil, 17,8 faizi isə dəniz nəqliyyatının fəaliyyəti nəticəsində yaranmışdır. Eyni zamanda, statistik məlumatlara əsasən cari ilin 9 ayında nəqliyyat sektorunda yükdaşıma 11,4 faiz, yük dövriyyəsi isə 22,2 faiz artmışdır. Nəqliyyat vasitələri ilə daşınan 134,5 milyon ton yükün 46,4 faizi avtomobil, 31,8 faizi boru kəməri, 15,4 faizi dəmir yolu, 6,4 faizi dəniz nəqliyyatı vasitəsilə həyata keçirilib. Özəl bölmənin nəqliyyat vasitələri ilə yükdaşıma 14,7 faiz artmış və bu sektorun yükdaşımada payı 69,1 faizə çatmışdır. Bu ilin yanvar-sentyabr aylarında sərnişindaşımanın 83,5 faizi qeyri-

dövlət sektoruna məxsus nəqliyyat vasitələri ilə həyata keçirilmişdir. Eləcə də cari ilin yanvar-avqust aylarında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,8 faiz çox yük, 6,2 faiz artıq sərnişin daşınmışdır. Statistik məlumatlardan da göründüyü kimi, nəqliyyat sisteminin dinamik inkişafı artıq təmin edilmişdir.

Ümumiyyətlə, İpək Yolu layihəsinin reallaşdırılması milli təsərrüfatın müxtəlif sahələrinin, xüsusən respublika nəqliyyat infrastrukturunun inkişafına təkan verəcəyi heç bir şübhə doğurmur. Çünki nəqliyyatın iqtisadiyyatı, onun müxtəlif növlərinin inkişaf etdirilməsi dövlətin iqtisadi siyasətinin tərkib hissəsidir. Bu baxımdan nəqliyyat növləri arasında prioritet əhəmiyyət kəsb edən avtomobil nəqliyyatının inkişafı ölkənin iqtisadi inkişafının bir nümunəsidir. Digər nəqliyyat növləri kimi, avtomobil nəqliyyatının da əsas vəzifəsi cəmiyyətin daşımalara (sərnişin və yük) olan tələbatını vaxtında, itkisiz və minimum məsrəflərlə ödəməkdən ibarətdir. Müşahidələr göstərir ki, keçmiş SSRİ-nin dağılmasından sonra milli təsərrüfatın bir çox sahələri kimi avtomobil nəqliyyatında da (xüsusilə yük avtomobil nəqliyyatı) yaranmış tənəzzül prosesi İpək Yolu layihəsinin gündəmə gəlməsindən sonra dayanmış və 90-cı illərin axırlarından etibarən nəzərəçarpacaq irəliləyişlərə nail olunmuşdur.

Yuxarıda qeyd olunduğu kimi, Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra qısa zaman kəsiyində milli dövlətçilik sahəsində mühüm nailiyyətlər əldə etmiş, özünün hüquqi-siyasi və sosial-iqtisadi dayaqlarını möhkəmləndirərək beynəlxalq aləmdə tutduğu mövqeyə görə regionun lider dövlətinə çevrilmişdir. Əldə edilmiş nailiyyətlər ölkə daxilində milli birliyin təmin olunmasına və dünya azərbaycanlıları arasında həmrəyliyin güclənməsinə səbəb olmuşdur. Bu isə, öz növbəsində, dünyanın müxtəlif dövlətlərində yaşayan soydaşlarımızı daha da ruhlandıraraq onların ölkəmizin milli maraqları ətrafında sıx birləşmələri üçün ciddi zəmin yaratmışdır.

Təbii ki, ölkəmizin inkişafında xaricdə yaşayan həmvətənlərimizin xüsusi rolu var. Bu gün onlar dünyanın harasında yaşamalarından asılı olmayaraq Azərbaycanla fəxr edir, onun uğurlarından qürur duyur və fərəh hissi keçirirlər. Məhz, bu milli birliyə və dünya azərbaycanlılarının həmrəyliyinə nail olduğumuz üçün türk dünyasının dahi şəxsiyyəti, ümummilli liderimiz Heydər Əliyevə borcluyuq.

Unudulmaz şəxsiyyət olan Heydər Əliyev bütün fəaliyyəti dövründə xaricdə yaşayan soydaşlarımızın birliyi və təşkilatlanması məsələsini daim diqqət mərkəzində saxlayaraq dünya azərbaycanlılarının vahid məqsəd ətrafında birləşdirilməsinə səy göstərmiş və buna nail olmuşdur. Qeyd etmək lazımdır ki, ümummilli lider Heydər Əliyevin müvafiq sərəncamı ilə Bakı şəhərində keçirilmiş Dünya Azərbaycanlılarının I qurultayı birliyə nail olunmasında mühüm əhəmiyyət kəsb etdi. Qurultay xaricdə yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında birləşərək təşkilatlanması istiqamətində yeni mərhələnin başlanğıcını qoydu.

Ulu öndərin ideyalarına sadiq qalan Azərbaycan Prezidenti cənab İlham Əliyev da xarici ölkələrdə yaşayan azərbaycanlıların problem və qayğılarını daim diqqət mərkəzində saxlayır. Soydaşlarımızla əlaqələri daha da möhkəmləndirmək və qarşıda duran vəzifələri müzakirə etmək məqsədilə Dünya Azərbaycanlılarının II qurultayının keçirilməsi də bunun bariz nümunəsidir. Qurultay Azərbaycanın sürətli inkişafı və beynəlxalq arenada siyasi mövqeyinin daha da gücləndirilməsi istiqamətində tarixi işlərin görülməsinə şərait yaratmışdır.

Nəhayət, dahi şəxsiyyət Heydər Əliyevin öz xalqına ən böyük xidmətlərindən biri də memarı olduğu müstəqil Azərbaycan dövlətini taleyin ixtiyarına, təsadüfün ümidinə buraxmaması, özünün siyasət məktəbində Azərbaycan dövlətinin dinamik inkişafını, bu inkişafın davamlılığını təmin etməyə qadir qətiyyətli lider, qüdrətli dövlət xadimi yetişdirməsidir. Əsası ulu öndər tərəfindən qoyulmuş milli dövlətçilik konsepsiyası bu gün Heydər Əliyevin mənəvi-siyasi irsinin ən layiqli varisi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yüksək dinamizmlə davam etdirilir. Ölkə başçısının xüsusi diplomatik məharətlə həyata keçirdiyi balanslaşdırılmış daxili və xarici siyasət Azərbaycan Respublikasının milli təhlükəsizlik maraqlarının qorunmasına və ölkənin demokratik inkişafına xidmət edir. İqtisadi inkişaf göstəriciləri ilə, artıq nəinki regionda və ya MDB-də, hətta dünyada lider dövlətlər sırasına çıxan Azərbaycan Respublikasında əhalinin maddi-rifah halının yaxşılaşdırılması istiqamətində çoxşaxəli islahatlar həyata keçirilir. Prezident İlham Əliyev ümummilli liderin siyasi kursunu uğurla davam etdirərək ölkəmizi yaxın-uzaq ellərdə layiqincə tanıdır, yüksək idarəçiliyi və təşkilatçılığı ilə insanların rifah halının daha da yüksəlməsinə çalışır, torpaqlarımızın işğaldan azad olunması uğrunda qətiyyətlə mübarizə aparır. Bir sözlə, doğma Azərbaycanımız böyük həvəslə, qətiyyətlə, eləcə də bütün sahələrdə əldə etdiyi uğurları ilə parlaq gələcəyə doğru inamla irəliləyir.

“**Xalq qəzeti**“.-2009.-5 dekabr.-N 270.-S.3.

# HEYDƏR ƏLİYEVİN RESPUBLİKAYA RƏHBƏR SEÇİLMƏSİ İLƏ AZƏRBAYCAN TARİXİNDƏ KEYFİYYƏTCƏ YENİ MƏRHƏLƏ BAŞLANMIŞDI

**Seyfəddin QƏNDİLOV,**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının rektoru,
əməkdar elm xadimi, tarix elmləri doktoru, professor

**Yola saldığımız illər Azərbaycan dövləti üçün çox kəşməkəşli, əzab-əziyyətli, məşəqqətli olub. XX əsrin əvvəllərində Azərbaycan müstəqillik əldə etdi, lakin qısa müddətdən sonra onu itirdi. Bundan sonra zor gücünə Sovet imperiyasının tərkibinə qatıldı və uzun müddət imperiyanın təsiri altında qaldı. Bu dövrdə azərbaycanlılara qarşı açıq-aşkar ayrı-seçkilik edilir, millətimiz sıxışdırılırdı. Ötən əsrin 60-cı illərinin sonuna qədər bu ayrı-seçkilik özünü daha qabarıq şəkildə büruzə verirdi. Azərbaycanlılar qabaqcıl dünya elminin nailiyyətlərindən xəbər tuta bilmir və ya çox gec xəbər tuturdular. Təhsilə, elmə və elm adamlarına qayğı aşağı səviyyədə idi. Bəzi mədəniyyət və incəsənət xadimləri, ziyalılar təqiblərə məruz qalırdılar. Xalqın öz gerçək tarixi, mədəni-milli kökündən zorla qoparılmasına cəhdlər göstərilirdi. Digər sahələrdəki gerilik, iqtisadi tənəzzül ölkəmizi ittifaq miqyasında getdikcə gözdən salırdı. Respublikanın o vaxtkı rəhbərlərinin cəsarətsizliyi, Kremlin tapşırıqlarının xalqımızın inkişafına təsir edib-etməyəcəyinə varmadan sözsüz yerinə yetirmələri Azərbaycandakı mövcud vəziyyəti daha da ağırlaşdırırdı. Bütün bu proseslər təxminən yarım əsr, 1969-cu ilədək davam etdi.**

1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə Heydər Əlirza oğlu Əliyev seçildi və məhz bundan sonra Azərbaycan tarixində keyfiyyətcə yeni mərhələ başlandı. Azərbaycana və azərbaycanlılara qarşı münasibət tədricən dəyişdi. Onu da qeyd edim ki, həmin vaxt Azərbaycanda həllini gözləyən o qədər ciddi problemlər yaranmışdı ki, bunları aradan qaldırmaq üçün dərin iradə, siyasi uzaqgörənlik, millətə dərin məhəbbət, sevgi tələb olunurdu. Xalqı narahat edən əsas problemlərdən biri hakimiyyət daxilində yekdilliyin olmaması, xalqla hakimiyyət arasında müəyyən ayrılığın olması, ziyalıların siyasi hakimiyyətlə əməkdaşlıqdan kənarda qalması, milli ədəbiyyatın, milli-mənəvi dəyərlərin, mədəniyyətin sıxışdırılaraq sıradan çıxarılması idi. Ana dilinin təsir dairəsinin məhdudlaşdırılması, milli hərbçi kadrların hazırlanmaması, Azərbaycan xalqının ölkədə və beynəlxalq aləmdə kifayət qədər tanınmaması da ciddi narahatlıq doğuran problemlərdən idi. Düşmənlərimizin bədxah niyyətlərinin qarşısının lazımi səviyyədə alınmaması, türk dünyası və Türkiyə ilə qırılmış əlaqələrin bərpa edilməsinə süni əngəllər yaradılması da respublikamıza qarşı törədilən ayrı-seçkiliyin bariz nümunəsi idi. Bütün bunların aradan qaldırılması, Azərbaycan tarixində yeni mərhələnin başlanğıcının əsasını qoymaq və bunu sona qədər uğurla davam etdirmək əsas vəzifələrdən idi. Ümummilli liderin bu problemlərin qaldırılmasındakı fəaliyyətinin əsasını onun doğulduğu, böyüyüb başa çatdığı ailənin və özünün Azərbaycan xalqının milli-mənəvi, dini dəyərlərinə sıx bağlılığı, Azərbaycan və dünya tarixini mükəmməl bilməsi, xüsusi xidmət orqanlarında çalışarkən xalqımıza qarşı yönəlmiş siyasəti aydın görüb dərindən dərk etməsi və digər amillər onun millətsevərlik, müstəqil dövlətçilik baxışlarının formalaşmasında çox böyük rol oynamışdır. Heydər Əliyev xarakterinə görə praqmatik, dərin bilikli, məntiqli, cəsarətli, inadcıl, həyata keçirməyə çalışdığı ideyaları uğrunda əzmlə mübarizə aparan prinsipial rəhbər olmaqla yanaşı, milli ruhlu, millətini, xalqını, Vətənini hədsiz məhəbbətlə sevən bir azərbaycanlı siyasi lider idi.

Ümummilli lider hakimiyyətə gəldiyi ilk gündən dərhal azərbaycanlılar arasında milli birlik, xalqla hakimiyyət arasında yaranmış müəyyən ayrılığı aradan qaldırıb vəhdət yaratmağa başladı. Heydər Əliyev ilk növbədə hakimiyyət strukturlarına əsasən azərbaycanlıları yerləşdirdi. Bununla da Azərbaycan elitasını birləşdirib respublikanın tərəqqi, inkişaf yoluna çıxarılmasına nail oldu. Peşəkar kadrlar hazırlamaq ulu öndərin prioritet hesab etdiyi məsələlərdən idi. Bütün bunları isə xalqın öz içərisindən, öz nümayəndələrindən seçirdi. Sonralar dünyanın tanınmış tarixçiləri, siyasi xadimləri də ulu öndər haqqında xatirələr yazarkən bu məsələyə xüsusi diqqət yetirmişlər. Məsələn, Amerikanın görkəmli tarixçiləri T. Svyatoxovski və B. Kollinz bu barədə yazırdılar: "Heydər Əliyev Azərbaycan Kommunist Partiyasının rəhbəri seçildikdən sonra respublikadakı iqtisadi tənəzzülün qarşısı alındı, alternativ sənaye sahələri yaradıldı, neft sənayesinə xüsusi diqqət yetirildi. O, respublikanın siyasi elitasını birləşdirdi. Bu elita əsasən azərbaycanlılardan ibarət idi. Heydər Əliyev daim milli birliyə can atır. Azərbaycan elitasını birləşdirərək azərbaycanlıları yüksək vəzifələrə gətirirdi. Əliyev nailiyyətinin ən aşkar mənbəyi onun neft siyasətində idi. Lakin həmin siyasət həm də milliliyi həyata keçirirdi. Bu da yerli nomenklaturanın möhkəmləndirilməsi ilə nəticələndi. Əliyevin otuz beş nəfər əsas əməkdaş və tərəfdarlarının demək olar ki, hamısı azərbaycanlı idi. O, mühüm əhəmiyyətli boş vəzifə yerlərini doldurmaq

üçün slavyan mənşəli namizədlərdən istifadə edilməsinə heç bir meyl göstərmirdi və bir qayda olaraq, rus millətindən olan ikinci katib Moskva tərəfindən təyin edilirdi”.

ABŞ-ın başqa bir tədqiqatçısı Bernard A. Kukin isə yazırdı ki, bütün sovet dövründə azərbaycanlılar ilk dəfə olaraq Azərbaycanda məhz Heydər Əliyevin hakimiyyəti illərində iqtisadi həyatda hökmran mövqe tutdular, onların özünə inamı gücləndi.

Ümummilli lider hakimiyyətə gəldiyi ilk vaxtlardan milli kadrların hazırlanmasını prioritet məsələlərdən biri hesab edirdi. Bundan ötrü Azərbaycanın təhsil sistemini inkişaf etdirmək, qabaqcıl dünya ölkələrinin təhsil sistemi ilə əlaqələr qurmaq lazım idi. Qüdrətli şəxsiyyət zaman-zaman buna nail oldu. Təhsilin inkişafı mərhələlərinə strateji əhəmiyyət verilirdi. Yerli mütəxəssislərin hazırlanması işinin təşkili bu illərdə tamamilə yeni səviyyəyə çatdırılmışdı. 1969-70-ci tədris ilindən başlayaraq, tələbələrin sayı ali məktəblərdə 11 faiz, orta ixtisas tədris müəssisələrində 14 faiz artmışdı. Azərbaycanda yeni-yeni ali məktəblər açıldı. Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəbin açılması xüsusi olaraq qeyd edilməlidir. Bu hərbi məktəbin açılması Heydər Əliyevin xalqın sabahı naminə uzaqgörənliklə həyata keçirdiyi siyasətin real bəhrəsi idi. Çünki XX əsrin əvvəllərində azərbaycanlı hərbi kadrların olmaması və ya az olması ulu öndəri düşündürən vacib məsələlərdən idi. Azərbaycanlı hərbçilərin hazırlanması yalnız Sovet ordusu tərkibində mümkün idi. Ona görə də ümummilli liderin həyata keçirmək istədiyi əsas məsələlərdən biri azərbaycanlılar arasında hərbi kadrların yetişdirilməsi idi. Həmin dövrlərdə dövlətin ümumi siyasəti sayəsində orta məktəblərdə hərbi hazırlıq fənni tədris edilməyə başlandı, hərbi kadrların hazırlanmasına, hərbçilərə, hərbi vətənpərvərlik tərbiyəsinə diqqət yetirildi. 1976-1977-ci illərdən başlayaraq SSRİ-nin ali hərbi məktəblərinə ildə 800-900 nəfər gəncin göndərilməsinə nail oldu. Bu, Heydər Əliyevin xalq qarşısında böyük tarixi xidmətlərindən biri idi. Çünki bu məsələ çox böyük ustalıqla, siyasi baxışlarla, dünyagörüşlə gələcəyə hesablanmış əhəmiyyətli məsələ idi. Gələcəkdə Azərbaycanın milli ordusunun formalaşdırılmasında güclü zabit ehtiyatı, bacarıqlı, savadlı hərbi kadrlarla zəngin olan qüdrətli ordunun yaradılması müstəqilliyin təməllərinin birinin hazırlanmasına hesablanmışdı. Biz artıq bu uzaqgörən siyasətin bəhrəsini görürük. Bu gün mövcud olan Azərbaycanın güclü, qüdrətli, düşmənlərimizə layiqli müqavimət göstərə biləcək milli ordunun formalaşdırılmasının əsasını məhz böyük tarixi şəxsiyyət Heydər Əliyev qoyub. Ümumiyyətlə, hazırda müstəqil Azərbaycanın bacarıqlı mütəxəssislər sarıdan korluq çəkməməsi məhz 1969-1982-ci illərdə ulu öndərimizin məqsədyönlü fəaliyyətinin nəticəsidir.

Müdrik şəxsiyyət Heydər Əliyevin 1969-1982-ci illərdəki fəaliyyəti dövründə respublikada həyatın elə bir sahəsi qalmadı ki, orada inkişaf, tərəqqi, sıçrayış müşahidə olunmasın. Ölkənin iqtisadiyyatı, xalqın rifah halı, elm və təhsil, mədəniyyət və incəsənət, səhiyyə sahələri inkişaf edərək Azərbaycanın keçmiş müttəfiq respublikalar sırasında ön yerlərdən birini tutmasına gətirib çıxardı. Ümummilli lider bu fəaliyyəti ilə tək həmin dövrün Azərbaycanı və vətəndaşları üçün yox, həm də gələcək müstəqil Azərbaycanın möhkəm təməlini, sonrakı nəsillərin xoşbəxt və firavan həyatının bünövrəsini qoymuşdur. 1969-1982-ci illərdə ulu öndərin rəhbərliyi ilə həyata keçirilən iqtisadi və sosial siyasət, bunun sayəsində respublika iqtisadiyyatının bütün sahələrinin, xalqın həyat səviyyəsinin yüksəldilməsinə yalnız xalq təsərrüfatının, dövlət idarəçiliyinin və ictimai-siyasi həyatın dərin bilicisi kimi müvəffəq olmaq mümkün idi. Elə bu uzaqgörənliyinə və dərin siyasi baxışlarına görə ona böyük etimad göstərib Kremldə çox məsul bir vəzifəyə təyin etdilər.

Moskvada SSRİ dövlətinin rəhbərlərindən biri kimi fəaliyyət göstərdiyi dövrdə də Heydər Əliyev doğma Azərbaycanını və xalqını bir an da olsun unutmadı. Doğma Vətənin inkişafı və çiçəklənməsi, əhalisinin rifah halının, həyat səviyyəsinin daha da yüksəlməsi üçün əlindən gələni əsirgəmədi. Bu illər ərzində əldə edilməsi çox çətin olan nailiyyətləri gerçəkləşdirdi. Bütün bunları həyata keçirməyə onun Vətənə, xalqa, doğma el-obaya, torpağa hədsiz məhəbbət və sədaqəti, qurub-yaratmaq amalı kömək etmişdir. Sov. İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işlədiyi illərdə o, Vətəninə, xalqına əvvəlkindən də artıq bir məhəbbətlə xidmət etdi. Azərbaycanın şöhrəti daha da artdı, azərbaycanlılara qarşı münasibət getdikcə yaxşılaşdı. Təbii ki, bütün bunlar ölkəmizə qarşı məkrli niyyətlər həyata keçirmək istəyən düşmənlərimizin əl-qolunu bağlamışdı. Onlar yalnız böyük tarixi şəxsiyyət Heydər Əliyevin SSRİ rəhbərliyindən istefasından sonra fəallaşdılar.

… 1988-ci ildən başlayaraq Azərbaycanda dərinləşməkdə olan ictimai-siyasi, hərbi böhran getdikcə kulminasiya nöqtəsinə çatırdı. O vaxtkı Azərbaycan rəhbərliyinin cəsarətsizliyi, kölə psixologiyası və qətiyyətsizliyi respublikamızı uçuruma daha da yaxınlaşdırırdı. Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşmasından sonra sanki özündə qüvvə tapmış, millətlər arasında ədavət toxumu səpməkdə və bu ədavəti getdikcə reallaşdırmağa səy göstərən Sovet İttifaqının o vaxtkı rəhbəri Mixail Qorbaçov xalqın rəyini soruşmadan Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə can atırdı. Lakin o, bu istəyinə nail ola bilmədi. Xalqın getdikcə alovlanan etiraz dalğası nəhayət, Moskvanı silkələdi. Bundan bərk qorxuya düşmüş M. Qorbaçov təpədən dırnağadək silahlanmış sovet ordusunu

istiqlaliyyət, azadlıq və müstəqillik uğrunda dinc aksiya keçirən əliyalın xalqın üzərinə göndərdi. Azərbaycan torpaqlarına qarşı təcavüz planlarını gerçəkləşdirə bilməyən qüvvələr fəallaşaraq öz işğalçılıq niyyətlərini həyata keçirməyə başladılar. Azərbaycanın ən yeni tarixinə "Qara Yanvar" kimi həkk olunmuş 1990-cı il yanvarın 19-dan 20-nə keçən müdhiş gecədə yüzdən artıq günahsız Azərbaycan vətəndaşı qətlə yetirildi, yaralandı, ömürlük şikəst oldu. Ölkəyə külli miqdarda ziyan vuruldu. SSRİ rəhbərliyinin zorakılığına və günahsız insanların qətlə yetirilməsinə ilk etiraz səsini qaldıran, bu barədə dünya ictimaiyyətinə xəbər verən müdrik şəxsiyyət Heydər Əliyev oldu. Həmin vaxt imperiyanın ciddi nəzarətində olmasına baxmayaraq, həyatını riskə qoyaraq qanlı hadisənin ertəsi günü Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək bu müdhiş olayı törədənləri və təşkilatçılarını kəskin tənqid etmiş, Azərbaycanda baş vermiş hadisələri hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab etmişdir. Ulu öndər Azərbaycanda aparılmış kadr siyasətini, həmçinin, SSRİ-nin ali siyasi rəhbərliyini ciddi tənqid etmişdi. Çıxışının sonunda qətiyyətlə bildirmişdi ki, bu qırğını törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır.

Hadisələrin getdikcə daha dramatik vəziyyət alması yenicə qazanılmış dövlət müstəqilliyimizi uçuruma daha da yaxınlaşdırırdı. Belə bir vəziyyətdə ölkə rəhbərliyi əlacsız qalmışdı və nə etmək lazım gəldiyini bilmirdi. Xalq son ümid yeri kimi ulu öndər Heydər Əliyevə müraciət etdi. Həmin dövrdə xalqın müxtəlif təbəqələrinin nümayəndələri axın-axın Naxçıvana gedir, bu böyük, qüdrətli şəxsiyyətdən Bakıya dönüb respublikanı düşdüyü ağır vəziyyətdən qurtarmaq üçün təkidlə xahiş edirdilər. Ziyalılar müdrik şəxsiyyətə məktubla müraciət edərək mövcud vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz öhdəsinə götürməyi bacaracaq və Azərbaycanı məhv olmaqdan xilas edə biləcək şəxsin yalnız onun olduğunu bildirdilər, təkidlə xahiş etdilər ki, ölkəni böhrandan qurtarmaq üçün yaradılan yeni partiyaya rəhbərlik etməyə razılıq versin. Ziyalıların müraciətinə cavab verən ulu öndər Azərbaycanda baş verən hadisələrdən, ölkənin gələcək taleyindən ciddi narahat olduğunu və ömrünün qalan hissəsini xalqına həsr etməyə hazır olduğunu bildirdi. O vaxt artıq ölkəni idarə etmək iqtidarında olmayan mövcud hakimiyyət də Heydər Əliyevin Bakıya gəlməsini ondan acizanə xahiş edirdi. Heydər Əliyev xalqın çağırışını qəbul etdi. 1993-cü il iyunun 15-də ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi ilə müstəqil Azərbaycanın tarixində yeni mərhələ başlandı. Bu, inkişaf, tərəqqi, yeniləşmə və yüksəliş dövrü oldu.

1993-cü ildə də ulu öndər dövlət başçısı kimi fəaliyyətə başlayanda ölkədə hər şey məhv olmaq üzrə idi. Ona görə də qüdrətli şəxsiyyət fəaliyyətə müstəqil dövlət quruculuğundan başladı. Ümummilli lider bu barədə demişdir: "Dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət quruluşu yaratmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, ölkəni müharibə şəraitindən çıxarmaq, vətəndaşların rifahını yaxşılaşdırmaq, onların yaşaması üçün lazımi şərait yaratmaq – bu vəzifələr mənim Prezident fəaliyyətimdə əsas istiqamətlər olacaqdır".

Müstəqillik əldə etdikdən sonrakı dövrdə Azərbaycanda mövcud olmuş hakimiyyət qurumları keçmiş Sovet strukturlarını kor-koranə təkrarlayırdı. İcra orqanlarında tam intizamsızlıq hökm sürürdü. Dövlət hakimiyyətinin bölünməsi prinsipi sözdə elan edilsə də, əslində onun qanuni-hüquqi əsası təsbit olunmamışdı. Müstəqil dövlətin yeni Konstitusiyasına ehtiyac var idi. Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası dünya standartlarına uyğun şəkildə hazırlanıb qəbul olundu. Beynəlxalq təşkilatlar, tanınmış hüquq ekspertləri Azərbaycanın Konstitusiyasının qəbul olunması ilə ölkəmizdə mülki dövlət və açıq cəmiyyət quruculuğu üçün möhkəm zəmin yarandığını yüksək qiymətləndirirdilər. Konstitusiyanın qəbulu ilə Azərbaycanda hakimiyyət bölgüsünün qanuni-hüquqi əsasları bəyan olundu və bu işin həyata keçirilməsinə başlanıldı. Ən çox diqqət çəkən məqamlardan biri də Konstitusiyada Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması idi. Xalqımızın milli sərvəti olan ana dilimizin inkişafına daim qayğı göstərilməsi haqlı olaraq ümummilli liderin böyük tarixi xidmətlərindən sayılır. Həmin qayğı və diqqət qüdrətli şəxsiyyətin Sovet imperiyası dövründəki fəaliyyəti zamanı da özünü büruzə verirdi. SSRİ Konstitusiyası qəbul edildikdən sonra müttəfiq respublikaların Konstitusiya layihəsi dərc olunaraq ümumxalq müzakirəsinə verildi. Daha çox sovet rəhbərliyinin hökmü və göstərişi ilə hazırlanmış bu layihələrdə milli dillər haqqında heç bir şey deyilmirdi. Bununla da müttəfiq respublikaların hüquqları məhdudlaşdırılırdı. Azərbaycanda yeni Konstitusiyanı hazırlayan komissiyanın sədri Heydər Əliyev idi. Çox gərgin zəhmətdən və təzyiqlərdən sonra ulu öndər SSRİ-nin o vaxtkı rəhbəri L İ. Brejnevlə danışaraq Azərbaycan dilinin dövlət dili statusunun Konstitusiyaya salınması məsələsini birdəfəlik həll edir. Konstitusiya layihəsinin ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş iclasda müdrik şəxsiyyət öz məruzəsində birmənalı şəkildə bildirib: "73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". Əslində bu, Konstitusiyaya yeni bir maddənin salınması idi. Bununla da Heydər Əliyev gələcək müstəqil dövlətçiliyin mühüm atributlarından birini məharətlə, cəsarətlə, qətiyyətlə qorudu və bu

günümüzə yetirdi. Müstəqil Azərbaycanın Konstitusiyasında da Azərbaycan dilinin dövlət dili kimi qəbul olunması ilə bu məsələyə birdəfəlik son qoyuldu. Milli sərvətimiz olan ana dilimiz əbədiyaşar oldu. Bu, Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı ən böyük tarixi xidmətlərindən biri idi.

Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra fəaliyyətinin, yeritdiyi siyasətin ən mühüm və ən başlıca cəhəti respublikamızın müstəqilliyinin qorunub saxlanılması, möhkəmləndirilməsi, Azərbaycan dövlətçiliyinin inkişaf etdirilməsi olmuşdur. "Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir" sözləri ulu öndərin fəaliyyətinin başlıca məzmununu təşkil etmişdir. Bunun üçün o, çox böyük çətinlikləri, daxildən və xaricdən olan ciddi təzyiqləri aradan qaldırmalı oldu, özünə xas olan möhkəm iradə və dəyanət nümayiş etdirdi. Bu, hər kəsin işi deyildi, belə işin öhdəsindən ancaq Heydər Əliyev kimi müdrik şəxsiyyət gələ bilərdi. Bütün bunlara nail olmaq üçün ümummilli lider idarəçilik təcrübəsi olan bilikli, savadlı, geniş dünyagörüşünə malik olan kadrlara arxalanırdı. Müdrik şəxsiyyət deyirdi: "İdarəçilik təcrübəsi olmayan adam dövlətə rəhbərlik edə bilməz. Dövlət idarəçiliyində beynəlxalq təcrübə ilə yanaşı, yerli xüsusiyyətlər də nəzərə alınmalıdır". Məhz bu baxımdan Heydər Əliyevin 3 yanvar 1999-cu il tarixli Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılması haqqında fərmanı çox yüksək qiymətə layiqdir. Bu, ümummilli liderimizin dövlətçiliyimizin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi işinə mühüm diqqət və qayğısı idi. Ulu öndərin bu müdrik qərarı dövlət xidməti sisteminə istedadlı, bacarıqlı, qabiliyyətli, əxlaq və mənəviyyatca təmiz olan gənclərin cəlb olunması, bundan ötrü onlara yüksək səviyyəli müasir təhsilin verilməsi istəyindən irəli gələn qətiyyətli bir addım idi.

Özünün 10 yaşını yenicə qeyd etmiş Dövlət İdarəçilik Akademiyası bu illər ərzində tam bir inkişaf, özünüdərketmə yolu keçmiş, dövlət idarəçiliyi sistemində müxtəlif ixtisaslar üzrə respublikamızın mühüm elm və təhsil ocaqlarından birinə çevrilmişdir. Qüdrətli şəxsiyyətin yadigarı olan Dövlət İdarəçilik Akademiyası onun tövsiyələrinə sadiq qalaraq müstəqil Azərbaycan üçün müasir idarəçi, yeni tərzdə düşünən, yeni təfəkkürlü kadrlar hazırlayır. Respublikamızda dövlət idarəçiliyi sahəsində ilk yeganə təhsil ocağı olan akademiya bu illər ərzində müasir düşüncəli, zəkalı gənclərdən ibarət, dövlət strukturlarını dövrün, zamanın tələbləri səviyyəsində idarə edə biləcək mütəxəssis kadrlar hazırlamaq, mövcud kadrların və dövlət məmurlarının ixtisaslarının artırılması istiqamətində səmərəli fəaliyyət göstərmiş, mühüm müvəffəqiyyətlər qazanmaqla, beynəlxalq aləmdə tanınmaq istiqamətində də xeyli irəliləyişlərə nail olmuşdur. Ulu öndər tərəfindən dövlət idarəçiliyinə aid qəbul edilən qərarlar, tövsiyələr, verdiyi fərmanlar təkcə bu gün üçün yox, Azərbaycan dövlətçiliyinin gələcəyi üçün də çox əhəmiyyətlidir.

… İllər bir-birini əvəz edəcək, əsrlər dəyişəcək, yeni nəsillər gələcək. Azərbaycanda o qədər böyük işlər görüləcək ki, bəlkə də bu gün çox yüksək dəyərləndirilən işlərin çoxu unudulacaq. Ancaq müdrik şəxsiyyət Heydər Əliyevin xalqımız qarşısındakı iki xidməti: birincisi, müstəqilliyimizin qorunması, daimi və əbədi olması, həmçinin dövlətçiliyimizin möhkəmlənməsi, ikincisi, vətəndaş müharibəsinin, Azərbaycanın parçalanmasının qarşısının alınması sahəsindəki xidməti qədirbilən nəsillərin xatirində əbədi qalacaqdır. Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısındakı ən böyük xidmətlərindən biri də onun Azərbaycana yeni dövlət idarəçiliyi fəlsəfəsi, mədəniyyəti gətirməsidir. Bu o deməkdir ki, Heydər Əliyev tək bugünkü Azərbaycanı yox, sabahkı Azərbaycanı da düşünürdü. Azərbaycanın qazandığı bütün nailiyyətlərin, doğma yurdumuzun adının yüksəkliklərə ucaldılmasının, sabitliyin, əmin-amanlığın, tərəqqi və inkişafın müəllifi ümummilli lider Heydər Əliyevdir.

Altı ildir ki, ümummilli lider cismən aramızda yoxdur. Lakin onun siyasi kursu Azərbaycanı gündən-günə daha uca zirvələrə aparır. Ulu öndərin yarımçıq qalmış ideyalarını çox böyük müvəffəqiyyətlə həyata keçirən, geniş dünyagörüşə malik, uzaqgörənliyi və dərin siyasi baxışları ilə bu gün dünya siyasətçilərini heyran qoyan möhtərəm Prezidentimiz cənab İlham Əliyevin yorulmaz fəaliyyəti Azərbaycanı getdikcə daha uca zirvələrə qaldırır. İndi Azərbaycan regionda lider dövlətə çevrilib, Avropaya və dünya birliyinə uğurla inteqrasiya edir. Ölkəmizin iştirakı olmadan regionda hər hansı bir iri layihənin həyata keçirilməsi mümkün deyil. Biz indi fəxr edirik ki, Azərbaycan iqtisadiyyatı sürət tempinə görə liderdir, dünyanın ən islahatçı dövlətidir. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində möhtərəm Prezidentimizin yeritdiyi müdrik siyasət müstəqil dövlətimizin beynəlxalq aləmdəki nüfuzunu daha da artırır. Artıq dünyanın qüdrətli dövlətləri və tanınmış nüfuzlu beynəlxalq təşkilatları münaqişənin aradan qaldırılmasında dövlət başçımızın mövqeyini dəstəklədiklərini açıq şəkildə bəyan edirlər. Bu, ümummilli lider Heydər Əliyev siyasi kursunun müstəqil Azərbaycana bəxş etdiyi ən layiqli töhfədir. Ölkəmizin inkişafı və dövlətçiliyimizin daha da möhkəmləndirilməsi, milli-mənəvi dəyərlərimizin dünya miqyasında tanıdılmasında, şöhrətlənməsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın da yorulmaz fəaliyyəti yüksək qiymətə layiqdir. Axı o da ulu

öndər Heydər Əliyev siyasi məktəbinin layiqli yetirməsidir. Azərbaycan xalqı Heydər Əliyev siyasi kursunun ən layiqli yetirməsi olan bu iki yenilməz qüvvəyə inanır və güvənir.

“**Xalq qəzeti**“.-2009.-8 dekabr.-N 272.-S.3.

# HEYDƏR ƏLİYEV VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ

**Sakit HÜSEYNOV,**
AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun şöbə müdiri,
fəlsəfə elmləri doktoru

**Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik.**

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

**Məlumdur ki, hər hansı bir xalqın mədəniyyətinin inkişafında , milli şüurunun formalaşmasında tarixən yaranmış milli-mənəvi dəyərlər mühüm rol oynayır. Çünki hər bir xalqın milli-mənəvi dəyərlərini şərtləndirən dil, din və adət-ənənə onun mənəvi aləminin formalaşmasına həlledici təsir göstərən amillərdəndir. Hər hansı bir ölkədə xalqın milli-mənəvi dəyərlərinin qorunması və mədəniyyətinin inkişaf etdirilməsi vətəndaşların milli birliyinin təmin olunmasına xidmət edir.**

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət-ənənələrinin zənginləşdirilməsinə çalışmışdır. Eyni zamanda, ulu öndər gənclərimizi xalqımızın milli-mənəvi dəyərləri, milli əxlaq prinsipləri əsasında tərbiyə etməyi tövsiyə edirdi. Bu baxımdan ulu öndər gənclərimizin milli-mənəvi dəyərlər əsasında tərbiyələndirilməsindən bəhs edərək demişdir: "…Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik".

Azərbaycan xalqı tarixin ən çətin dövrlərində belə, öz zəngin milli-mənəvi irsini və adət-ənənəsini yad təzahürlərdən hifz edərək onu qoruyub saxlamış və nəsildən-nəsilə ötürmüşdür. Xalqımızın milli-mənəvi dəyərləri, adət-ənənəsi insanlarımızın dini etiqadına əsaslanaraq özündə çox böyük milli əxlaqi və bəşəri duyğuları təcəssüm etdirir. Müqəddəs daxili inama, mənəvi saflığa tapınan Azərbaycan xalqı tarixin ən kəşməkəşli mərhələlərində belə, mənəviyyatın təntənəsinə xidmət edən İslam dininin zəngin dəyərlərindən dönməyərək bu dəyərlərə həmişə sadiq qalmışdır. İslam dininin mahiyyətini dərk edən xalqımız onun insan ruhunu paklığa səsləyən müqəddəs çağırışlarına, mərasim və ayinlərinə tarixin bütün məqamlarında əməl etməyə çalışmışdır. Ulu öndər bu haqda demişdir: "Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir".

Hətta insanların yaddaşında ateizm mərhələsi kimi qalan Sovet dönəmində də xalqımız öz milli-mənəvi dəyərlərindən, dini baxışları və adət-ənənələrindən uzaqlaşmamış, əksinə milli və dini əxlaqa söykənərək xeyirxah işlər görərək, qohum-qonşulara, maddi yardıma ehtiyacı olanlara əl tutaraq savab qazanmağa can atmışlar. Eyni zamanda, xalqımız həmin dövrdə bir çox qadağalara baxmayaraq milli (Novruz) və dini (Qurban, Ramazan) bayramlarını da qeyd etmişlər.

Lakin ölkəmiz müstəqillik əldə etdikdən sonra xalqımızın dini bayramları dövlət səviyyəsində qeyd olunmağa başlanmış və milli-mənəvi dəyərlərimizin qorunması işinə dövlət tərəfindən ciddi qayğı göstərilməsi həyata keçirilmişdir. Məsələn, Azərbaycan Prezidentinin andiçmə mərasimində respublika Konstitusiyası ilə yanaşı, müqəddəs Qurani-Kərimə də əl basaraq dövlətə, xalqa sədaqətlə xidmət edəcəyinə , milli-mənəvi və dini dəyərlərimizi qoruyacağına and içməsi yuxarıda dediklərimizə əyani sübutdur.

Respublikamızda ikinci dəfə hakimiyyətə gələn ulu öndər Heydər Əliyev ilk gündən Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə sadiq olduğunu öz fəaliyyəti, əməlləri və bu sahədə həyata keçirdiyi tədbirlər vasitəsilə sübut etmişdir.

Ümummilli lider Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə (1993-2003-cü illər) xalqımızın milli-mənəvi dəyərlərinin, onun adət-ənənələrinin dirçəldilməsi, xüsusən İslam mədəniyyəti nümunələri olan məscidlərin , tarixi memarlıq abidələrinin, ziyarətgahların bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsi onun bir daha xalqa mənən bağlılığını və islami dəyərlərə sədaqətini göstərən parlaq misallardır. Heydər Əliyevin tez-tez dindarlarla görüşməsi, dini bayramlarda məscidlərə getməsi, dindarların mənəvi ehtiyaclarına həssaslıqla yanaşması xalq arasında həmişə böyük razılıq hissi ilə qarşılanmışdır.

Məsələn, Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra respublikamızda dini bayramların, o cümlədən Qurban bayramının rəsmi şəkildə qeyd olunmasını vurğulayan ulu öndər bu bayramın bəşəri-mənəvi dəyərlərindən insanların faydalanmasının əhəmiyyətindən bəhs edərək demişdir: "Müsəlmanların böyük bir təntənə ilə həmrəylik və qardaşlıq rəmzi kimi qeyd etdikləri Qurban bayramı insanlar üçün yüksək bəşəri-

mənəvi dəyərlərdən faydalanmaq imkanları yaradır. İslamın insanpərvərlik, mehribanlıq və mərhəmət prinsiplərinə həmişə sadiq qalmış Azərbaycan xalqı tarixinin çətin dövrlərində belə, Qurban bayramını özünün ən əziz günlərindən biri kimi qeyd etmişdir. Dövlət müstəqilliyimizin bərpasından sonra bu günün rəsmi şəkildə bayram edilməsi xalqımızın öz milli və dini ənənələrinə sədaqətinin parlaq ifadəsidir".

Xalqımızın milli-mənəvi dəyərlərinin təbliğində və gənclərimizin bu ruhda tərbiyə olunmasında, həmçinin cəmiyyətin bu istiqamətdə səfərbər edilməsində ümummilli lider Heydər Əliyevin xidmətlərini yada salan Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev "Azərbaycanda humanitar və ictimai elmlər sahəsində yaranmış vəziyyət"ə həsr olunmuş müşavirədə 90-cı illərin əvvəllərində milli-mənəvi oriyentasiyanın olmamasının müəyyən çətinliklər yaratdığını vurğulamışdır. O, bu çətinliklərin aradan qaldırılmasında və cəmiyyətin səfərbər edilməsində ulu öndərin rolundan danışarkən demişdir: "Azərbaycanın gələcək inkişaf strategiyasını müəyyənləşdirmiş ümummilli lider Heydər Əliyev bütün cəmiyyəti səfərbər edərək onu düzgün yola istiqamətləndirdi. Bu gün 90-cı illərin çətinliklərini artıq geridə qoymuşuq. Biz müasir Azərbaycan dövlətinin inkişafında yeni mərhələ yaşayırıq. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, iqtisadi sahədə keçid dövrü artıq başa çatmışdır. Ölkəmizdə inkişafın yüksək sürəti təmin edilmişdir. İndi möhtəşəm və məsuliyyətli vəzifələrin öhdəsindən gəlmək üçün dövlətimizin kifayət qədər potensialı və təcrübəsi vardır".

Müşavirədə humanitar və ictimai elm sahəsində çalışanların qarşısında duran vəzifələrdən bəhs edən akademik R. Mehdiyev bildirmişdir ki, milli-mənəvi dəyərlərin qorunması indi ən ümdə vəzifələrdən biridir. Lakin milli dəyərlərin qorunub saxlanılmasından danışarkən biz heç də onların konservasiyasını nəzərdə tutmuruq. Biz daim irəliyə, gələcəyə baxmalı, insani, maddi və mənəvi resurslarımızı səfərbər etməliyik. Millətin tarixi keçmişi onun gələcəyə uğurla addımlaması üçün həm etibarlı zəmin, həm də ibrət dərsidir. Yeni inkişaf yolunu müəyyən edən strategiyada, sözsüz ki, varisliklə novatorluq vəhdət təşkil etməlidir.

Ümummilli lider Heydər Əliyev həmişə həm müdrik el ağsaqqalı, həm də təcrübəli dövlət başçısı kimi cəmiyyətimizin mənəvi əsaslarını təşkil edən ümdə prinsiplər və onların qorunub inkişaf etdirilməsi istiqamətləri barədə çox dəyərli fikirlərini xalqla bölüşdürmüşdür. Belə bir ünsiyyətin fərqləndirici əlaməti onun rəsmiyyətdən uzaqlığı, ulu öndərin cəmiyyətin sadə üzvləri ilə daim təmasda olması, həmişə xalqa bağlılığı ilə şərtlənirdi. Heydər Əliyev öyrədirdi ki, sərvət toplamaq, dünyanın ən ləzzətli təamlarını nuş etmək, son dəbdə geyinmək, bütövlükdə müəyyən maddi sərvətlərə malik olmaq mümkündür. Lakin hər bir insan və hər bir millət hər şeydən əvvəl öz xalqının mənəvi sərvətlərinə sahib çıxmalı, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini və milli-mənəvi dəyərlərini qorumalıdır. Gələcək nəsillərə bəlkə də maddi sərvətlər və iqtisadi mirasdan daha çox mənəvi irs, milli mentalitet ərməğan edilməlidir. Ulu öndər özünün mənəviyyatla bağlı məşhur 2001-ci ilin avqust bəyanatında milli mentalitetlə əlaqədar demişdir: "Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Heç vaxt iki xalq bir-birinə bənzəməz. Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik".

Məlumdur ki, ölkəmiz müsəlman dünyasının ayrılmaz hissəsi olaraq islam mədəniyyətinin inkişafına tarixən öz töhfələrini vermişdir. Eyni zamanda, islam dini xalqımızın həm dini əqidəsi, həm də milli-mənəvi dəyərləri kimi insanların həyatının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Xalqımızın mənəvi inkişafında gənclərimizin əxlaqının formalaşmasında, azərbaycanlıların ailə institutunun möhkəm təmələ söykənməsində islamın rolu əvəzsizdir. İslam bütün müsəlman dünyası tərəfindən qəbul edilə biləcək vahid ilahiyyat konsepsiyası yaratmışdır. İslamın həyat qabiliyyəti dini sistem çərçivəsində müxtəlif nöqteyi-nəzərlərin yanaşı mövcudluğuna imkan verməsi ilə təmin olunur. Ulu öndər milli-mənəvi dəyərlərin xalqın, vətəndaşların milli birliyinə xidmət etdiyini həmişə vurğulamış, xüsusən dini bayramların milli həmrəyliyin təmin edilməsində mühüm rol oynadığını xüsusi qeyd etmişdir. Azərbaycan xalqının milli həmrəyliyinin bərqərar olmasında Qurban bayramının xüsusi əhəmiyyət kəsb etdiyini bildirən ümummilli lider Heydər Əliyev 2003-cü ildə Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edərkən demişdir: "Qoy bütün milli və dini bayramlarımız kimi mübarək Qurban bayramı da xalqımızın yüksək ideallar ətrafında daha çox birləşməsini təmin etsin, azad , müstəqil və demokratik Azərbaycan dövlətinin gələcək inkişafı naminə bütün azərbaycanlılar arasında ümummilli həmrəyliyi möhkəmləndirsin".

Ulu öndərimiz Heydər Əliyev türkdilli xalqların öz milli tarixlərini, doğma dillərini, ədəbiyyatlarını, mədəniyyət və incəsənətini, adət-ənənələrini qorumağı və onları zənginləşdirməyi həmişə dəstəkləmişdir. Bu baxımdan ümummilli lider Heydər Əliyev türkdilli ölkələrin mədəni əlaqələrini həyata keçirən Türksoy təşkilatının fəaliyyətinin genişlənməsinə və Azərbaycanın bu təşkilatın işində fəallıq göstərməsinə həmişə xüsusi diqqət yetirmişdir.

Hazırda Azərbaycanın türkdilli ölkələrlə mədəni əlaqələrində Türksoy təşkilatı əsas rol oynamaqdadır. Türksoy təşkilatının əsası 1992-ci ilin yazında İstanbul şəhərində türkdilli dövlətlərin mədəniyyət nazirlərinin birinci görüşü zamanı qoyulmuşdur. Türksoyun idarəetmə orqanlarının strukturu və fəaliyyət mexanizmləri təşkilatın 1992-ci ilin dekabrında Bakıda keçirilən ikinci toplantısında formalaşdırılmışdır.

Bundan sonra "Türksoyun yaradılması və fəaliyyət prinsipləri haqqında Müqavilə" sənədi 12 iyul 1993-cü ildə Almatı şəhərində 6 təsisçi-dövlət və təşkilatın daimi üzvləri – Azərbaycan, Qazaxıstan, Türkiyə, Türkmənistan, Qırğızıstan və Özbəkistan respublikaları tərəfindən imzalanmışdır. Daha sonra bu müqaviləyə müşahidəçi dövlət qismində Tatarıstan, Başqırdıstan, Şimali Kipr türk respublikaları, həmçinin RF tərkibində olan Tuva, Xakasiya, Altay, Saxa-Yakutiya respublikaları və Moldova Respublikası tərkibində TAO Qaqauz Yeri qoşulmuşdur.

Türksoy təşkilatının əsas məqsəd və vəzifələri aşağıdakılardan ibarətdir:

- Beynəlxalq münasibətlərin humanistləşdirilməsinə və stabilləşdirilməsinə istiqamətlənən beynəlxalq ictimaiyyətin mənəvi inkişafının prioritetlərini regional və planetar səviyyədə qəbul və təsdiq edilməsi;
- Beynəlxalq dialoqun təşkili və inkişaf etdirilməsi və Türksoya üzv dövlətlərin mədəni oxşarlıqlarının dəstəklənməsi;
- Türkdilli xalq və ölkələr arasında dost münasibətlərin və qarşılıqlı anlaşmanın qurulması;
- Türkdilli xalqların etnogenezi, gerçək tarixi, ədəbiyyat, mədəniyyət və incəsənətin öyrənilməsi sahəsində elmi araşdırmaların intensivləşdirilməsi;
- Öz xalqlarının milli tarixinin, doğma dilinin, ədəbiyyatının, mədəniyyət və incəsənətinin və ənənələrinin yeni nəsil tərəfindən öyrənilməsinin dəstəklənməsi və s.

Əlbəttə, həyat inkişaf etdikcə Türksoyun da fəaliyyət istiqamətləri genişlənir və çeşidli tədbirlər keçirilir. Türkdilli ölkələr arasında elmi-mədəni əlaqələrin genişləndirilməsi fikri 2-3 oktyabr 2009-cu il tarixində Türkdilli Dövlətlərin Dövlət Başçılarının Naxçıvan şəhərində keçirilmiş 9-cu Sammitində qəbul edilmiş Bəyannamədə öz əksini tapmışdır. Qeyd edək ki, Naxçıvan şəhərində keçirilmiş türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü Türksoyun fəaliyyətinə böyük dəstək göstərmiş və türk dünyasının mədəniyyət sahəsindəki əməkdaşlığına yeni yollar açmışdır. Türksoy " Bakı İslam Mədəniyyətinin Paytaxtı – 2009" mədəniyyət ili çərçivəsində keçirilən tədbirlərdə də fəal iştirak etmişdir. Bu məqsədlə Türksoyun Daimi Şurasının 26-cı toplantısı 16-17 oktyabr 2009-cu ildə Bakı şəhərində keçirilmişdir. Toplantını açan Azərbaycan mədəniyyət və turizm naziri Ə. Qarayev hesabat dövründə təşkilatın fəaliyyəti haqqında məlumat verərək bildirmişdir ki, Avrasiyanın türkdilli arealı çərçivəsində milli dil, tarix, mənəvi irs, mədəniyyət və incəsənət yaxınlığı ilə birləşən ölkə və xalqların regional əməkdaşlığını həyata keçirən Türksoy bu sahədə öz fəaliyyətini daha da genişləndirmişdir. Tədbirdə çıxış edən Türksoyun baş direktoru Düsen Kaseinov bu təşkilatın türk xalqlarının daha da yaxınlaşması istiqamətində həyata keçirdiyi tədbirlər barədə ətraflı məlumat vermişdir. Türk xalqlarının mədəni əlaqələrinin genişlənməsindən bəhs edən D. Kaseinov bildirmişdir ki, dahi Azərbaycan bəstəkarı Ü. Hacıbəyovun "Koroğlu" operası artıq beş ölkədə böyük uğurla nümayiş etdirilmişdir. O qeyd etmişdir ki, dünyanın ən böyük operalarından olan "Koroğlu"nun türk xalqlarının teatr səhnəsində oynanılması bu xalqların mədəni həyatında böyük hadisədir. Türksoyun beynəlxalq əməkdaşlıq sahəsindəki rolundan danışan D. Kaseinov vurğulamışdır ki, təşkilat YUNESKO, İSESKO, Avropa Şurası, Avrokomissiya, Dövlətlərarası Humanitar Əməkdaşlıq Təşkilatı (DHƏT) və MDB arasında əməkdaşlığın gücləndirilməsinə istiqamətlənmiş bir sıra tədbirlər həyata keçirmişdir.

Qeyd edək ki, Novruz bayramının YUNESKO-nun qeyri-maddi irs siyahısına daxil edilməsində Türksoyun müəyyən rolu olmuşdur. Bu baxımdan Türksoy 2010-cu ildə Novruz bayramını Parisdə YUNESKO-nun mənzil-qərargahında qeyd etməyi nəzərdə tutmuşdur.

Ümumiyyətlə, türkdilli ölkələrdə həyata keçirilən tədbirlər, o cümlədən "Türk dillərinin bədii tərcüməsinin problemləri və müasir vəziyyət" (İstanbul) və "Sivilizasiyaların dialoqunda türk dünyasının rolu" (Almatı) mövzularında simpoziumların, müxtəlif kino, teatr və musiqi festivallarının keçirilməsi həmin ölkələr arasında mədəni əməkdaşlığın genişləndirilməsində Türksoyun mühüm rol oynadığını göstərən faktlardır.

Türkdilli xalqların mədəni əlaqələrinin inkişafında Türksoyun fəaliyyətinin ulu öndər Heydər Əliyev tərəfindən dəstəklənməsini türkdilli xalqların tarixən formalaşmış ortaq mənəvi dəyərlərinin qorunması sahəsində onun uzaqgörənliyi kimi dəyərləndirmək olar.

Ulu öndərin daxili və xarici siyasətini uğurla davam etdirən, xalqımızın milli-mənəvi dəyərlərini həmişə uca tutan ölkə Prezidenti cənab İlham Əliyev də islam dini ilə bağlı tarixi ənənələrə və dini bayramlara hörmət və ehtiramla yanaşır. Bütün milli və dini bayramlarda Azərbaycan xalqını təbrik edən hörmətli Prezidentimiz builki Qurban bayramı münasibətilə təbrikdə demişdir: "Xalqımız öz milli-mənəvi dəyərlərinə və ənənələrinə həmişə ehtiramla yanaşır. Bütün dini mərasimlər, o cümlədən Qurban bayramı hər il böyük təntənə ilə qeyd

olunur. Ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, xalqımızın və dövlətimizin əmin-amanlığı və firavanlığı üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Əminəm ki, builki Qurban bayramı da cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir. Əziz bacı və qardaşlarım! Bu müqəddəs bayram günlərində bir daha hər birinizə cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram. Qurban bayramınız mübarək olsun!"

"**Xalq qəzeti**".-2009.-9 dekabr.-N 273.-S.4.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DÖVLƏT, MİLLƏT QARŞISINDAKI XİDMƏTLƏRİ ZAMAN KEÇDİKCƏ DAHA AYDIN GÖRÜNÜR

**Kamal ADIGÖZƏLOV,**
Azərbaycan Respublikasının Prezidenti yanında
Strateji Araşdırmalar Mərkəzinin eksperti

**Ötən əsrin əvvəlləri kimi, sonları da Azərbaycan üçün mürəkkəb və ziddiyyətli, dinamik və taleyüklü proseslərlə səciyyələnən zəngin dövlət quruculuğu dövrü kimi tarixə qovuşmuşdur. Təbiidir ki, tarixə qovuşma prosesi müəyyən zaman daxilində baş verir və bu zamandan maksimum səmərəli yararlanma, onu xalqın, millətin inkişafına, gələcəyinə, dövlətin möhkəmləndirilməsinə yönəltmək missiyası şəxsiyyətlərin fəaliyyəti, adı ilə bağlı olur. Heydər Əliyev şəxsiyyət kimi tarixi hadisədir. Tarix şəxsiyyəti, bu cür şəxsiyyətlər isə tarixi yaradır. Müdriklər demişlər ki, şəxsiyyəti mühit və hadisələr yetirir, ancaq hadisələri də şəxsiyyətlər idarə edir və hadisələr özü də onların izini daşıyır.**

Deyildiyi kimi, boş zaman yoxdur, boşa keçən zaman var. Məhz fəaliyyətinin hər dövründə zamanı boşa keçirməyən, əksinə, zamanı əməlləri ilə zənginləşdirən ulu öndər Heydər Əliyevin ən əsas, müqəddəs istəyi xalqın birliyinə, dünya azərbaycanlılarının həmrəyliyinə söykənən güclü, möhtəşəm, qüdrətli müasir dövlətin yaradılması olmuşdur. Ümumbəşəri xüsusiyyətləri özündə cəmləşdirən milli lider Heydər Əliyev milli dövlətçiliyi və azərbaycançılıq ideyalarını hər şeydən üstün tutmuşdur və o, xalqın öz Vətəninə ürəkdən bağlı olan nadir şəxsiyyətlərindəndir. Belə şəxsiyyətlər tarixin ən çətin və keşməkeşli dövrlərində milli ruhun enerjisindən, xalqın tarixi-siyasi tələbatından və genetik potensialından doğulur.

Heydər Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratmış və gələcəyə aparan yolları müəyyən etmişdir. Məhz buna görə də Azərbaycan tarixinin 1969-cu ildən bəri yaşanan dövrü Heydər Əliyevin adı ilə sıx bağlıdır və tariximizə Heydər Əliyev dövrü kimi həkk olunmuşdur. Bu dövrün Azərbaycanın gələcək tarixi taleyi baxımından başlıca məzmunu isə azərbaycançılıqdır. Heydər Əliyevin dövlətçilik strateji proqramında azərbaycançılıq məfkurəsi xüsusi yer tutmuşdur. Heydər Əliyevin 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa verməsi, 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etməsi, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını qətiyyətlə tərk etməsi vətənpərvərliklə, azərbaycançılıq məfkurəsi ilə bağlı idi. Bu, əsl vətənpərvərlik mövqeyinin nümayişi idi.

Azərbaycanda dövlətçilik ənənələrinin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur. Heydər Əliyev öz müdrik rəhbərliyi, siyasi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə zəmanəmizin görkəmli siyasi xadimi kimi tanınmış, Azərbaycan xalqının ümummilli liderinə çevrilmişdir. Azərbaycan ziyalısını keçən yüzilliklərdə ən ciddi bir şəkildə düşündürən milli dirçəliş problemləri bütöv şəkildə Heydər Əliyevin fəaliyyəti ilə strateji dövlət siyasəti müstəvisinə keçmişdir. Azərbaycanın hərtərəfli inkişafı üçün onun hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edəcəkdir.

Azərbaycanın müasir dövlətçiliyi tarixində müstəqillik dövrünün arxada qalan hər ilinin öz yeri vardır. Müstəqil Azərbaycanın keçdiyi sınaqlar, dövlətçiliyimizin ən ağır günlərində Heydər Əliyev qətiyyəti və müdrikliyi xalqımızı və Azərbaycanımızı həmişə xilas etmişdir. Ümummilli liderimiz keçilməsi mümkün olmayan maneələri dahiyanə yanaşması ilə böyük əzm və səylə qət etmişdir. Ulu öndər Heydər Əliyev demişdir: “Ağıl olan yerdə zora ehtiyac yoxdur. Tarix həmişə hər şeyi öz yerinə qoyur”.

Azərbaycan xalqının dahilik rəmzi olan Heydər Əliyevin dövlət, millət qarşısında tarixi xidmətləri zaman keçdikcə daha aydın görünür. Aydın görünür ki, Heydər Əliyev rəhbərliyinin bütün dövrlərində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır. O, böyük siyasi və dövlət xadimi, xalqın şəksiz lideri olaraq hələ sağlığında canlı əfsanəyə

çevrilmiş, buna görə də Heydər Əliyev fenomeni həmişə diqqətləri cəlb etmiş, heyranlıq doğuracaq dərəcədə coşğun siyasi fəaliyyəti istər ölkə, istərsə də dünya miqyasında kök atmışdır.

Ulu öndərin uzaqgörən müdrik siyasəti nəticəsində müstəqil Azərbaycan dünya xalqları içərisində inkişaf etmiş dövlətlər birliyində öz layiqli yerini tutmaq, tərəqqi etmiş ölkələr sırasına qoşulmaq yolunda böyük inam və qətiyyətlə irəliləmişdir. Qısa müddətdə Azərbaycanın beynəlxalq imici dəyişmiş, ölkəmiz dünyanın siyasi və iqtisadi arenasının fəal subyektlərindən birinə çevrilmişdir. Bütün ölkədaxili, regional və coğrafi-siyasi maneələrə baxmayaraq, Azərbaycan dövlət quruculuğu və iqtisadi inkişaf sahəsində böyük nailiyyətlər əldə etmişdir. Məhz Heydər Əliyevin hakimiyyəti dövründə ölkədə siyasi plüralizm yaranmış, cəmiyyət əsl demokratiya yolu ilə inkişaf yoluna çıxmışdır.

Heydər Əliyevin dövlət və xalq qarşısındakı tarixi xidmətlərini heç kim inkar edə bilməz. Onun ölkədə vətəndaş həmrəyliyinə nail olunması, sabitlik yaradılması, müstəqil dövlət qurulması, iqtisadi-sosial sahədə, neft strategiyasında tarixi addımlar atılması, bütün sahələrdə mühüm islahatlar həyata keçirilməsi, beynəlxalq aləmdə respublikanın mövqeyinin möhkəmləndirilməsi sahəsində gördüyü işlər unudulmazdır. Ulu öndər ölkədə bazar iqtisadiyyatının təşəkkül tapmasında, Azərbaycana xarici investisiyaların cəlb olunmasında, beynəlxalq iqtisadi əlaqələrin genişləndirilməsində, xalqın rifah halının yüksəldilməsində çox böyük işlər görmüşdür. Məhz Heydər Əliyevin sayəsində Azərbaycan inkişaf etmiş və sivil dövlətlər sırasına çatmışdır. Ümumiyyətlə, siyasi, iqtisadi, sosial, mədəni həyatda, beynəlxalq sahədə kifayət qədər nailiyyətlər qazanılmışdırsa, dövlətçiliyin gücləndirilməsində, ölkənin tərəqqisində nə qədər yeniliklər, uğurlar əldə edilmişdirsə – bunlar Heydər Əliyevin sayəsində mümkün olmuşdur.

Müdrik şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə aparılmış məqsədyönlü siyasət nəticəsində ölkənin iqtisadi həyatında qazanılmış ən mühüm uğurlardan biri də dünyanın inkişaf etmiş nüfuzlu şirkətləri ilə bağlanmış neft müqavilələri olmuşdur. Bu müqavilələr Azərbaycan iqtisadiyyatının gələcək inkişafı üçün geniş perspektivlər açmışdır. Heydər Əliyevin neft strategiyası dövlətimizin müstəqilliyinin qarantına çevrilməklə yanaşı, azad iqtisadi münasibətlər mexanizmlərini də hərəkətə gətirmiş, ölkəmizin dünya iqtisadi məkanına dinamik inteqrasiyasını, xalqımızın rifahının artması üçün çox önəmli olan xarici sərmayələrin cəlb edilməsini təmin etmişdir. Bütün bunlar dövlətimizin daxili qüdrəti ilə yanaşı, beynəlxalq nüfuzunun artırılmasına xidmət edir. Xəzərin Azərbaycan hissəsində dünyanın tanınmış neft şirkətləri ilə yataqların birgə işlənməsi üzrə ilk sazişlərin, "Əsrin müqaviləsi"nin imzalanması, ölkəmizin parlaq gələcəyinə stimul yaradan yeni neft strategiyası Heydər Əliyev müdrikliyinin bariz nümunəsi idi. Siyasi və iqtisadi böhran keçirən bir ölkədə qısa zamanda sabitlik yaratmaq, dünyanın nəhəng şirkətlərini regiona cəlb etmək, konkret olaraq milyard dollarla ölçülən sazişləri imzalamaq, sözsüz ki, uzaqgörən siyasət və müdriklik tələb edirdi. "Əsrin müqaviləsi"nin Azərbaycanın parlaq inkişafı üçün nə demək olduğunu hamı anlamalıdır". Bu sözlər məhz ümummilli lider Heydər Əliyevə məxsusdur.

Xüsusi vurğulanmalıdır ki, müstəqil Vətənimizin sosial, iqtisadi, siyasi inkişafı, Cənubi Qafqaz bölgəsində sülhün və əmin-amanlığın bərqərar olması istiqamətində Heydər Əliyev dühasının yeritdiyi siyasi kurs – Azərbaycanın beynəlxalq aləmə geniş inteqrasiyasına rəvac verən bu tərəqqi yolu ölkəmizin sayılıb-seçilən dövlətlər arasında öz layiqli yerini tutmasına, ən əsası isə xalqımızın firavan və xoşbəxt gələcəyinə tam təminat vermişdir.

Təbii ki, 2003-cü ilə qədərki tarixi nailiyyət bu dövrə qədər keçən son on ildə hüquqi dövlət quruculuğu, iqtisadi, sosial, humanitar və xarici siyasət sahəsində aparılan müdrik siyasi xəttin məntiqi nəticəsində qazanılmışdır. Azərbaycanın müharibə şəraitində yaşamasına və keçid dövrünün mahiyyətindən doğan çətinliklərə baxmayaraq, bu müddət ərzində Heydər Əliyevin gərgin və yorulmaz fəaliyyəti demokratik təsisatların, vətəndaş cəmiyyətinin formalaşması prosesinə, ictimai-siyasi sabitliyin və güclü iqtisadi potensialın yaranmasına gətirib çıxarmışdır. Bərqərar olmuş ictimai-siyasi sabitlik, əlverişli iqtisadi mühit xarici sərmayələrin həcminin artmasına səbəb olmuşdur. Neft strategiyasının uğurla həyata keçirilməsi sosial-iqtisadi inkişafa təkan vermiş, əhalinin sosial həyat şəraiti yaxşılaşdırılmış, yoxsulluğun səviyyəsinin azaldılması üçün mühüm işlər görülmüşdür. Milli-mənəvi dəyərlərin qorunub saxlanılması, zənginləşməsi və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi dövlətin prioritet vəzifələrindən birinə çevrilmişdir. Siyasi sistemin demokratik prinsiplər əsasında inkişafı, cəmiyyətimizdə ümumbəşəri dəyərlərin dərin kök salması Azərbaycanın beynəlxalq aləmə sıx inteqrasiyasına və formalaşmaqda olan demokratik dövlət kimi tanınmasına yol açmışdır. Azərbaycanın dövlət müstəqilliyinin qorunması və təhlükəsizliyinin möhkəmləndirilməsi, dövlətlərarası əlaqələrin inkişaf etdirilməsi, beynəlxalq və regional təşkilatlarla səmərəli əməkdaşlıq ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli yer tutmasını təmin etmişdir. Beləliklə, ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illərdə müstəqil dövlətimizin tərəqqisi üçün möhkəm təməl yaradılmışdır. Bu dahi insan var qüvvəsi və bacarığını Azərbaycanımızın yüksəlişinə və böyük zirvələri qət

etməsinə sərf etmişdir. Ulu öndər öz həyatının uğurlarını xalqına arxalanmaqda görərək demişdir: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi-siyasi, mənəvi inkişafına xidmət edir. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da, mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib ".

Xilaskarlıq missiyasının banisi kimi tanınan Heydər Əliyev XX əsrin son dərəcə mürəkkəb və ziddiyyətli tarixi şəraitində fəaliyyət göstərmişdir. Artıq qeyd etdiyimiz kimi, Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyev şəxsiyyəti ilə, onun mübarizə yolu, böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır. Məhz dahi şəxsiyyət Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə gəlməsi Azərbaycanın müstəqillik tarixində yeni bir mərhələnin başlanğıcını qoymuşdur. O dövrü bir anlığa xatırlayanda göz önünə, ilk növbədə, ölkədə hökm sürən anarxiya və xaos, hərc-mərclik və dərəbəylik gəlir. Bütün bunlara son qoymaq, ictimai-siyasi prosesləri normal məcraya yönəltmək hər kəsin işi deyildi və bu missiyanı öz Liderlik və Xilaskarlıq səyi və bacarığı sayəsində əbədiyaşar Prezident Heydər Əliyev üzərinə götürdü, bu dövləti əbədi, sarsılmaz və qüdrətli dövlətə, Azərbaycanın müstəqilliyini dünya müstəvisində reallığa çevirdi. Bəli, əsl həqiqətdir ki, bu böyük şəxsiyyət öz dərin zəkası, iti ağlı və mətin iradəsi ilə Azərbaycanımızı yüksəltdi, qorudu, müstəqilliyini yaşatdı və əbədiləşdirdi. İndi Azərbaycan adı Heydər Əliyevin adı ilə qoşa çəkilir. Beləliklə. "Bu və ya digər xalqın böyüklüyü onun sayca çoxluğu ilə deyil, bəşəriyyətə bəxş etdiyi dühalarla ölçülür" – müdrik kəlamı təsdiqini tapır.

Məhz ulu öndərin tarixi şəxsiyyət kimi meydana çıxması Azərbaycanda yeni günəşin doğmasına, ölkəmizin parlaq gələcəyinin bərqərar olmasına təkan verdi. Azərbaycanın inkişaf yolunu müəyyən edən Heydər Əliyevin səyləri nəticəsində ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında ciddi dönüş mərhələsinin başlanğıcı qoyuldu. Dövlətin əsası olan suverenlik, dövlətçilik, ədalət, demokratiya, milli yüksəliş, dünyəvi dövlət və liberal iqtisadiyyat kimi ümumbəşəri dəyərlərin sintezini təmin edən milli ideologiya formalaşdırıldı. Azərbaycanlıları dünyaya sivil dəyərlərin daşıyıcısı kimi tanıdan, dünya azərbaycanlılarını vətənə bağlayan azərbaycançılıq fəlsəfəsinin əsasları yarandı. Dünya xəritəsində suveren və müstəqil Azərbaycan adlı tarixi həqiqət ünvanı hər kəsə bəlli oldu. Heydər Əliyev sübut etdi ki, siyasət naşıların zənn etdiyi kimi asan məsələ deyildir. Hətta ən kəşməkəşli zamanlarda belə, Azərbaycan xalqının müstəqil olmaq hüququnu təmin edə bilmək böyük sənətdir.

Fransanın "Kuryer İnternasional" jurnalının 2003-cü ilin may nömrəsində nəşrin baş redaktoru Aleksandr Adler ulu öndər Heydər Əliyevə həsr etdiyi məqaləsində yazırdı: "Nə sülh, nə də firavanlıq gətirən tufanların tüğyan etdiyi müasir dünyada Heydər Əliyev kimi dövlət xadimləri həmişəkindən daha çox gərəkdir. Tanrı bu şəxsiyyəti təkcə öz xalqına deyil, həm də başqa xalqlara son dərəcə mürəkkəb tarixi bir məqamda göndərmişdir. O, bir sıra ciddi böhranlar keçirmiş və onları dəf etmişdir. O, bunların hamısına mətanətlə sinə gərmiş və onu mənən və cismən məhv etmək üçün göstərilmiş bütün cəhdlərə baxmayaraq, daha yüksəklərə qalxmışdır".

Bu gün də Heydər Əliyevin müəyyən etdiyi yol davam etdirilir. Azərbaycan inkişaf edir, ən uca zirvələrə qalxır, beynəlxalq aləmdə öz nüfuzunu daha da gücləndirir. İndi Heydər Əliyev ideyaları Azərbaycan dövlətinin strateji inkişaf xəttinin ideoloji əsaslarını təşkil edir. Onun xalqımız, Vətənimiz qarşısında ən böyük və müqəddəs borcu onun məmləkətimizin nailiyyətlərini gələcəkdə yaşatmaq və daha da təkmilləşdirmək iqtidarında olan layiqli, ləyaqətli bir varisi – İlham Əliyevi yetişdirməsidir. Belə ki, İlham Əliyev türk dünyasının ən qüdrətli sərkərdəsinin, Heydər Əliyev kimi azman siyasi liderin, qüdrətli zəka sahibinin yanında, siyasi kürəsində bərkimiş, yetkin dövlət başçısı olduğunu məsuliyyətli fəaliyyətində təsdiqləmişdir. Əgər indi ulu öndərin siyasi varisi, layiqli davamçısı İlham Əliyev bütün varlığı ilə müstəqil Azərbaycanımızın siyasi, iqtisadi və mədəni inkişafı istiqamətində həlledici əhəmiyyətə malik işlər görürsə, deməli, Heydər Əliyev ideyalarının həyata keçirilməsi başlıca vəzifə kimi öz aktuallığını saxlayır və xalq da öz Prezidentinin həyata keçirdiyi məqsədyönlü siyasəti dəstəkləyir. Artıq bu bir reallıqdır ki, Azərbaycan ümummilli liderimizin müəyyən etdiyi strateji və alternativi olmayan siyasi xətt ilə inamla irəliləyir, dövlətimiz gənc və dərin zəkaya malik liderlə daha sürətlə inkişaf edir. Azərbaycan getdikcə qüdrətli və dayanıqlı ölkəyə çevrilməklə dünya miqyasında öz mövqeyini və yerini möhkəmləndirir. Ölkə Prezidenti İlham Əliyev demişdir: "Mənim məqsədim budur ki, Azərbaycan xalqı daha da yaxşı yaşasın, əmin-amanlıq olsun, inkişaf olsun. Ölkəmiz daha da inkişaf etsin, güclənsin və Azərbaycan dünyada daha da möhkəm bir dövlətə çevrilsin".

Artıq fəxrlə deyə bilərik ki, Azərbaycan möhkəm və qüdrətli dövlətə çevrilib və bu böyük şəxsiyyətlərin reallaşdırdıqları inkişaf konsepsiyası sayəsində əldə olunan uğurlar ölkəmizin nurlu sabahının təminatçısıdır.

Əsl rəhbər kimi məhz Heydər Əliyev Azərbaycan həqiqətlərini qətiyyətlə bütün dünyaya tanıda bilmişdir. Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından Azərbaycan rəhbəri həmişə öz

sözü, öz çəkisi, öz sanbalı ilə seçilmişdir. Ümumxalq məhəbbəti qazanan Heydər Əliyevin bitməz-tükənməz enerjisi xalqı yaradıcılıq uğurlarına ruhlandırmışdır.

1993-cü ilin yayında xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev öz böyük siyasi təcrübəsi və müdrikliyi ilə Azərbaycanı təhlükəli vəziyyətdən çıxarmağa nail oldu. İlk növbədə, hakimiyyət vakuumu aradan qaldırıldı, respublikanın müxtəlif bölgələrində baş qaldırmış destruktiv qüvvələr xalqın fəal köməyi ilə zərərsizləşdirildi, vətəndaş müharibəsinin qarşısı alındı. Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə qəsdlər təşkil edən cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildi. 1994-cü ilin mayında Ermənistan-Azərbaycan müharibəsində atəşkəsə nail olundu. Heydər Əliyev Azərbaycan həqiqətlərini, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini dünya ictimaiyyətinə çatdıra bildi.

Azərbaycan yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirməyə başlamışdır. Heydər Əliyevin siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi aradan qaldırılmışdır. Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından Azərbaycan rəhbəri həmişə öz sözü, öz çəkisi, öz sanbalı ilə seçilmişdir. Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Heydər Əliyevin fəal diplomatiyası nəticəsində Azərbaycan dünyanın demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatların ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail ola bilmişdir. Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil etmişdir.

Heydər Əliyev Azərbaycanın təbii sərvətlərindən, əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən ölkənin milli mənafelərinə uyğun şəkildə istifadə edilməsinə yönəldilmiş irimiqyaslı beynəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində son dərəcə gərgin və səmərəli fəaliyyət göstərmişdir. Böyük bir coğrafi məkanda region qüvvələrinin birləşməsində də Heydər Əliyevin danılmaz xidmətləri olmuşdur.

Heydər Əliyevin daxili siyasəti hüquqi dövlət quruculuğuna, Azərbaycanın hər bir vətəndaşının azad, sərbəst yaşamaq hüquqlarının təmin edilməsinə, xalqın həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilmişdi. Bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi bu siyasətin prioritetləri idi.

Heydər Əliyev bizim dahi müasirimizdir. Bu faktın özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaratmışdır.

Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır.

Azərbaycan xalqının milli lideri, müdrik rəhbər və dahi şəxsiyyətin əziz və işıqlı xatirəsi qədirbilən Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır. Heydər Əliyev yalnız Azərbaycan xalqının deyil, bütün türk dünyasının milli lideri, zəmanənin böyük siyasi xadimdir. Heydər Əliyev hər zaman türklərin qəlbində yaşayacaq əfsanədir. Heydər Əliyev 1992-ci ildən başlayaraq türkdilli dövlətlər arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində gərgin fəaliyyət göstərmişdir. O, bütün türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi şöhrət qazanmışdır. Məhz ona görədir ki, ictimai rəydə Heydər Əliyev türk dünyasının qüdrətli bir insanı, bütün türk dünyasında Atatürk kimi özünəməxsus yeri olan böyük rəhbər kimi ölməzlik qazanmışdır və ümummilli liderə olan sevgi daha da artmışdır.

Heydər Əliyev amili Azərbaycanda həyati əhəmiyyətə malik bütün dəyişikliklərdə mühüm və həlledici rol oynamışdır. Məmləkətimizdə gedən prosesləri diqqətindən qoymayaraq, parçalanma, qarşıdurma təhlükəsinin labüdlüyü anında xalqın, Vətənin imdadına yetişən ulu öndər dövlətçilik təcrübəsinin bütün variantlarından istifadə etməyə məcbur olmuşdur. Zəkasının ziyası ilə məmləkətimizi bürümüş zülməti yox edərək, aydınlığa çıxarmışdır. Ən əsası isə odur ki, Azərbaycanın müstəqillik yolu ilə inamla addımlaması, uğurlara zənginləşməsi Heydər Əliyevin şəxsiyyət bütövlüyünün, əqidədə saflığının nəticəsi idi.

Azərbaycanın taleyüklü problemlərinin həllində, müqəddəs milli vəzifələrin uğurla həyata keçirilməsində, beynəlxalq ictimai rəydə, Vətənimizin daha böyük uğurlar qazanmasında xalqımızın böyük oğlu Heydər Əliyevin misilsiz xidmətləri təsdiqlənmiş və qəbul edilmişdir. İnamla demək olar ki, Heydər Əliyevin

həyat və idarəetmə salnaməsi, siyasi peşəkarlığı və yenilməz iradəsi məhz bu vəzifələrin yerinə yetirilməsində başlıca təminat olmuşdur. Heç kəs yaddan çıxarmamalıdır ki, Azərbaycanın bölüşdürülməsi və daxili toqquşmalar, vətəndaş qarşıdurması və etnik toqquşmalar içərisində boğulmasını nəzərdə tutan məkrli planlar məhz Heydər Əliyev fonameni sayəsində aradan qalxmışdır.

Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində gerçəkləşdirdiyi planlar artıq bugünkü Azərbaycanın reallığına çevrilmişdir. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi vardır. Görkəmli filosof, Milli Elmlər Akademiyasının həqiqi üzvü, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev haqlı olaraq qeyd edir ki, "Heydər Əliyev zəngin tarixə malik bir xalqın özünütəsdiqi üçün zəruri olan milli-mədəni məkanda yaşamaq imkanını reallaşdırdı. Nəticədə milli yiyəlik hissinə sahib olan, dövlətçilik təfəkkürünə yiyələnən, ölkənin bu günü və sabahı üçün məsuliyyət hissi ilə yaşayan azərbaycanlı vətəndaşın obrazı, dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi dövlət fəaliyyətinin mühüm istiqamətlərindən biri olmuşdur.

XX əsrdən bəhs edəndə həm də onu üç böyük ideyanın reallaşdığı, gələn nəsillərə miras qalan ideyalar əsri kimi səciyyələndirirlər. Bunlar suverenlik, demokratiya və siyasi inkişaf modelləri ideyalarıdır.

Heydər Əliyev ən qısa zaman kəsiyində yüzilliyin ideyaları sayılan bu üç irsi həyata keçirməyə, suveren, demokratik Azərbaycan dövləti yaratmağa, onun özünəməxsus siyasi inkişaf modelini müəyyənləşdirməyə qadir olmuşdur. O, sübut etmişdir ki, heç bir ideya cəmiyyətə kənardan diktə və göstərişlə qəbul etdirilə bilməz. Cəmiyyətin öz içərisində ideyanı duyan, konkret tarixi spesifikaya uyğun tətbiq edən, yeni ideyaları milyonlara çatdıra bilən siyasi lider hər şeyə qadirdir".

Bəli, bu gün Azərbaycan sözün əsl mənasızda yüksək sürətlə böyük zirvələrə doğru irəliləyir, Azərbaycan öz qüdrətini daha da artırır. Heydər Əliyevin siyasi xəttinin davamçısı olan Prezident İlham Əliyev hazırda Azərbaycanı müvəffəqiyyətlə siyasi və iqtisadi modernləşməyə doğru aparır. İqtisadiyyatın liberallaşdırılması, ölkənin geosiyasi və geoiqtisadi çəkisinin artması, vətəndaş ilə dövlət arasında vahid birliyin, ahəngdarlığın bərqərar olması Azərbaycanı yüksələn xətlə inkişafa aparır. 2003-cü ilədək əldə edilmiş sabitlik və inkişaf son illər ərzində milli büdcənin həcmini 10 dəfədən çox, o cümlədən, müdafiə büdcəsini bir neçə dəfə, adambaşına düşən gəliri inkişafda olan ölkələrin səviyyəsinə qaldırmağa imkan vermişdir. Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində Azərbaycan iqtisadi inkişaf sürətinə görə dünyanın aparıcı dövlətləri sırasında yer almışdır. Son illər ərzində Azərbaycan rəqabət indeksi üzrə dünyanın 60 ölkəsi içərisində, postsosialist məkanında isə ilk yerlərdə təmsil olunmuşdur. Adambaşına düşən birbaşa xarici investisiyanın həcminə görə Azərbaycan regionda lider, dünyada isə ilk onluqdadır. Azərbaycanı dünyanın ən islahatçı ölkəsidir. Rəqabətədavamlılıq sahəsində Azərbaycan MDB ölkələri arasında şəksiz liderdir. Son illərdə həyata keçirilmiş tədbirlər ölkədə yoxsulluq səviyyəsinin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarmış, 800 mindən çox yeni iş yeri açılmışdır. Şəhər və kəndlərimiz günbəgün dəyişir, regionlarımız müasirləşir, informasiya-kommunikasiya vasitələrinin səmərəli inkişafı sayəsində ölkəmiz mühüm intellektual mərkəzə çevrilir. Bunların hamısı bir daha ölkəmizin sürətli inkişafının və modernləşməsinin bariz nümunəsidir. Əlbəttə ki, bu nailiyyətlərin əldə olunmasında müqəddəs Tanrımızın xalqımıza xoşbəxtlik rəmzi olaraq bəxş etdiyi gənc və uzaqgörən liderimiz İlham Əliyevin fəaliyyəti danılmaz bir həqiqətdir. Dahi şəxsiyyətin siyasi kursunu davam etdirən cənab İlham Əliyev böyük əzmkarlıq və mətanət göstərməklə Azərbaycanımızı qət olunması çətin sayılan zirvələrə ucaldır, dövlətçiliyimizi və tarixi müstəqilliyimizi daha da möhkəmləndirir.

"Əmin ola bilərsiniz ki, mən Heydər Əliyevin başladığı bütün işləri axıra çatdıracağam" – söyləyən Prezident İlham Əliyev ulu öndərimiz tərəfindən müəyyən edilmiş dövlətçilik kursunu davam etdirməklə, Azərbaycanımızı indiki firavan günlərə çatdırmış və gələcəyə, sabaha möhkəm təminat yaratmışdır.

Prezident İlham Əliyev böyük əzmlə həyata keçirdiyi quruculuq proqramının gerçəkləşməsi yolunda ciddi tədbirlərin görüldüyü vaxtda xalqımızın 2003-cü ilin dekabrında ümummilli lider Heydər Əliyevi itirməsi bütün cəmiyyətimizi sarsıtdı. Lakin kədərimiz nə qədər ağır olsa da, xalqımız özünün görkəmli oğlu Heydər Əliyevin ideyalarına sadiq qalaraq, onun bizə əmanət qoyduğu müstəqil dövlətçiliyimizi yaşadıb inkişaf etdirmək üçün qüvvələrini səfərbər etdi, ümummilli liderin siyasi varisi Prezident İlham Əliyevin hər bir vətəndaşın maraqlarını ifadə edən siyasi kursuna dəstək verdi.

Bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş Heydər Əliyev öz titanik fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Xalq da heç vaxt ondan öz dəstəyini əsirgəməmişdir. Xalqın Heydər Əliyevə göstərdiyi böyük etimad və ehtiram hissləri müdrik rəhbərin dəfn mərasimində də bir daha bütün dünyaya əyani şəkildə nümayiş etdirildi. Bu, milyonlarla insanın öz rəhbərinə bəslədiyi səmimi hisslərin misli görünməmiş təzahürü idi.

İndi ulu öndərin vəfatından altı il keçsə də, Azərbaycan xalqının yaddaşına xilaskar, qurucu, yaradıcı lider kimi həkk olunan bu dahi insan təkcə bizim yox, bütün dünya azərbaycanlılarının fəxrinə çevrilmişdir. Heç kəs unutmamalıdır ki, Azərbaycanı parçalanmaqdan qurtaran, beynəlxalq aləmdə tanıdan, bugünkü firavan, azad həyatımızın banisi məhz Heydər Əliyevdir. O, Azərbaycan xalqının dahilik rəmzidir. Akademik Ramiz Mehdiyev yazır: “Heydər Əliyevə siyasət səhnəsində heç kim qalib gələ bilməmişdir. O, dövlətçilik tarixində “qalib lider” obrazını yaratdı. Azərbaycan tarixində böyük uğurları ilə yanaşı, həm də ən müxtəlif səbəblərdən məğlubiyyət anı yaşayan liderlər çox olmuşdur. Heydər Əliyev isə Azərbaycan xalqına qalibiyyətin canlı obrazını, lider örnəyini bəxş etdi. Bu, tariximizdə həmişəlik qürur ünvanı kimi qalacaq və onun siyasətinə də alternativ yoxdur”.

“**Xalq qəzeti**“.-2009.-11 dekabr.-N 275.-S.3.

# AZƏRBAYCANDA MELİORASİYA VƏ SU TƏSƏRRÜFATININ DİNAMİK İNKİŞAFI ULU ÖNDƏRİMİZİN ADI İLƏ BAĞLIDIR

**Əhməd ƏHMƏDZADƏ,**
Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri

**Ümummilli liderimiz Heydər Əliyevin zəngin dövlətçilik irsi xalqımızın inkişaf yoluna daim nur çiləyir. Heç şübhəsiz ki, gələcək nəsillər də bu dühanın aydın, parlaq ideyalarından qidalanaraq Azərbaycan Respublikasının müstəqilliyini əbədi edəcək, dünya birliyində dövlətimizin mövqeyini daha da möhkəmləndirəcəklər.**

Heydər Əliyevin rəhbərliyi altında işləmək, onun yaratdığı idarəetmə məktəbinin müdavimi olmaq böyük səadətdir. Belə səadətə nəsib olduğum üçün Tanrıya minnətdaram. Həyatımızın elə bir sahəsi yox idi ki, bu dahi insan onunla maraqlanıb, ortaya çıxan problemləri yoluna qoymasın. Elə götürək, meliorasiya və irriqasiya işlərini. Ölkəmizdə bu sahəyə maraq hələ XIX əsrin ikinci yarısından başlanmasına baxmayaraq, meliorasiya və irriqasiya işlərinin inkişaf edərək, geniş miqyasda vüsət tapması 1969 – 1982-ci illərə, yəni unudulmaz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk dövrə təsadüf edir.

Həmin illərdə cənab Heydər Əliyevin şəxsi təşəbbüsü və yaxından köməkliyi ilə meliorasiya və su təsərrüfatında böyük quruculuq işləri aparılmış, güclü istehsal bazasına, tikinti və istismar təşkilatlarına, elmi-tədqiqat, layihə-axtarış institutlarına malik ixtisaslaşmış meliorasiya və su təsərrüfatı sahəsi, su axımını bölüşdürən, tənzimləyən suvarma sistemləri, kollektor-drenaj şəbəkələri, nasos stansiyaları və çoxsaylı su tutar anbarlardan ibarət etibarlı meliorasiya və su təsərrüfatı kompleksi yaradılmış, ölkədə suvarılan torpaqların ümumi sahəsi 1,5 dəfə artmışdır.

Ötən əsrin 70-80-ci illərində meliorasiya və su təsərrüfatı sahəsinə 2 dəfədən çox vəsait qoyulmuş, min kilometrlərlə suvarma kanalları, kollektor-drenaj sistemləri, geniş həcmli nasos stansiyaları, hidroqovşaqlar, ümumi tutumu 3 milyard kubmetr olan su anbarları və sair tikilib istifadəyə verilmiş, meliorativ fondların həcmi 2 dəfədən çox artmış və bütün bunların hesabına torpaqların məhsuldarlığı qat-qat yüksəlmiş, suvarma əkinçiliyinin mədəniyyəti daha da səlisləşmiş, onun səmərəsi nəzərə çarpacaq dərəcədə artmışdır.

Böyük öndərin uzaqgörən siyasəti sayəsində ölkədə elə təsərrüfat sistemi yaradılmışdır ki, orada su çatışmazlığından gileylənmək bəhanədən başqa bir şey deyildi. Meliorasiya və su təsərrüfatının inkişaf etdirilməsi sahəsində 1970-ci ildən başlayaraq cənab Heydər Əliyevin göstərişləri əsasında həyata keçirilən tədbirlər respublikada kənd təsərrüfatı məhsullarının istehsalında böyük nailiyyətlərin əsasını təşkil etmişdir. 1983-cü ildə Azərbaycanda kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 1970-ci ildəkinə nisbətən 2,2 dəfə artmışdır. Bitkiçilik üzrə bu göstərici 2,6 dəfə, heyvandarlıq sahəsində isə 1,7 dəfə olmuşdur.

Heydər Əliyev Moskvada, İttifaq rəhbərliyində işləyərkən belə, respublikanın meliorasiya və su təsərrüfatı sahəsinə öz qayğısını əsirgəməmiş, bu yöndə işlərin gedişinə daim nəzarət etmiş və dəyərli köməklik göstərmişdir. Məhz həmin dövrdə onun fəal müdaxiləsi hesabına ölkəmiz üçün son dərəcə vacib sayılan Baş Mil-Muğan kollektorunun yenidən qurulmasının, Naxçıvan Muxtar Respublikasında Vayxır su anbarının, Şəmkir magistral kanalının və onlarla digər vacib obyektlərin tikintisinin taleyi müsbət həll edilmişdir.

Lakin bu dahi insanın vəzifədən kənarlaşdırılması nəinki Azərbaycana, o cümlədən keçmiş SSRİ-yə böyük bəlalar gətirmişdir. Milli zəmində başlanan qanlı münaqişələr bütün dünyada söz sahibi sayılan nəhəng bir dövlətin əsaslarını laxlatmış, iqtisadiyyatını tənəzzülə sürükləmişdir. Bunu biz respublikamızda daha çox hiss etmişik. O vaxtkı respublika rəhbərliyinin səriştəsizliyi və şəxsən bizim sahəyə laqeyd münasibəti, aparılan işlərin sürətinə və həcminə mənfi təsir göstərmiş, meliorasiya və su təsərrüfatına qoyulan kapital heçə endirilmiş, irriqasiya sistemlərinin istismarına ayrılan büdcə vəsaiti ildən-ilə azaldılmışdır.

Nəticədə mühüm dövlət əhəmiyyətli meliorasiya və su təsərrüfatı obyektlərinin saxlanılması, istismarı, təmir-bərpası xeyli çətinləşmiş, daxili təsərrüfat subyektlərinin əksəriyyəti yararsız hala düşmüş, unikal şəkildə qurulmuş qapalı drenaj sistemləri və dəmir-beton növlü suvarma kanalları baxımsızlıq üzündən sökülüb dağılmışdı. Xoşbəxtlikdən belə vəziyyət çox uzun sürmədi. 1993-cü ilin iyun ayında xalqımızın böyük oğlu Heydər Əliyev ikinci dəfə yenidən Azərbaycanın rəhbərliyinə qayıtdı.

Cəmi iki il əvvəl müstəqillik qazanmış Azərbaycan Respublikası həmin vaxt çox təhlükəli bir vəziyyətlə üz-üzə dayanmışdı. Ölkədə, demək olar ki, vətəndaş müharibəsi başlanmışdı. Separatçı qüvvələr hərəkətə gəlmiş, respublikanın şimal və cənub bölgələrində, sözün əsl mənasında, hərki-hərkilik, özbaşınalıq yaranmışdı. İqtisadiyyat tam iflasa uğramış, Vətənimizin varı-dövləti hərraca qoyulmuşdu. Bax, belə bir gərgin, müşkül vəziyyətdə hakimiyyətə qayıdan Heydər Əliyev bütün dünyaya bəyan etdi ki, həyatının qalan hissəsini xalqına qurban verir.

Müstəqil Azərbaycan dövlətinin xilaskarı missiyasını şərəflə həyata keçirən Heydər Əliyev fəaliyyətə başlayanda bütün sahələrdə olduğu kimi, meliorasiya və su təsərrüfatı kompleksində də böhranlı vəziyyət hökm sürürdü, böyük zəhmət və küllü miqdarda vəsait hesabına yaradılmış qurğular, suvarma sistemləri qəza halına düşmüşdü, sahənin fəaliyyətinə ayrılan sərmayənin həcmi heçə endirilmişdi. Bizim böyük xoşbəxtliyimizdir ki, dövlətçiliyin bütün incəliklərini dərindən bilən bu əvəzsiz insan ölkənin ağır məqamında imdadımıza çatdı.

Ümummilli liderimizin ikinci dəfə respublika rəhbərliyinə gəlişi meliorasiya və su təsərrüfatını məhv olmaqdan xilas etdi, sahə öz inkişafının yeni mərhələsinə qədəm qoydu, ona diqqət və dövlət qayğısı bərpa olundu, meliorasiyanın potensialından daha səmərəli istifadə olunması yolları və onun gələcək inkişaf istiqamətləri müəyyənləşdirildi. Sahənin əhəmiyyətini yaxşı bilən Heydər Əliyevin göstərişləri əsasında respublikaya gələn xarici investisiyaların müəyyən hissəsi meliorasiya və su təsərrüfatının inkişafına yönəldildi.

1993-cü ildə, ölkədə mürəkkəb siyasi durum, iqtisadi böhran, müharibə şəraiti, qaçqınlar problemi və üstəlik vətəndaş qarşıdurması təhlükəsi hökm sürən bir dövrdə ulu öndər bir çox maneələrə baxmadan, heç nədən çəkinmədən, cəsarətlə xalq təsərrüfatında islahatların aparılmasını təkidlə tələb etdi və onun həyata keçirilməsinə rəhbərliyi bilavasitə öz üzərinə götürdü. Ölkəmizin bazar iqtisadiyyatı yolu ilə inkişaf etdiriləcəyi bəyan olundu. Bununla əlaqədar aqrar sahədə başlanan islahatlarla paralel meliorasiya və su təsərrüfatında da bazar münasibətlərinə uyğun işlərə start verildi. İlk növbədə, islahatların normativ-hüquqi bazası yaradıldı. Bir-birini təkrarlayan səmərəsiz strukturlar ləğv olundu, bazar iqtisadiyyatının tələblərinə uyğun daha çevik fəaliyyət göstərə biləcək yeni qurumlar yaradıldı. Xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyevin qısa bir müddətdə həyata keçirdiyi titanik işlər bütün dünyanı heyran qoydu. Daxildən və xaricdən törədilən əngəllərə baxmayaraq az vaxt ərzində ölkədə sabitlik yaradıldı. Əsas sərvətimiz sayılan yanacaq ehtiyatları hərəkətə gətirildi, dünyanın aparıcı ölkələrinin güclü maliyyə imkanlarına malik şirkətləri ilə 30 il müddətinə “Əsrin müqaviləsi” bağlandı və beləliklə, iqtisadiyyatın bütün sahələrində islahatlara geniş meydan açıldı.

MDB ölkələri arasında ilk dəfə Azərbaycanda 1996-cı ildə “Meliorasiya və irriqasiya haqqında” Qanun qəbul edildi. Bundan iki il sonra “Azərbaycan Respublikasının Su Məcəlləsi”, daha sonra isə “Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında” Qanun qüvvəyə mindi. Həmin qanunlar əsasında müvafiq normativ-hüquqi sənədlər hazırlanıb təsdiq edildi. Bunu xüsusi vurğulamaq istəyirəm ki, şəxsən cənab Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmiş “Azərbaycan Respublikasının Su Məcəlləsi” ölkəmizdə su münasibətlərinin tənzimlənməsi yolunda uğurlu bir addım olmuşdur.

Meliorasiya və irriqasiya sahəsində islahatların aparılması, onun gələcək inkişafının təmin olunması üçün ümdə əhəmiyyətə malik həmin qanunlar və onların əsasında qəbul edilmiş 30-a yaxın normativ-hüquqi sənəd meliorasiya və su təsərrüfatında işlərin istiqamətlərini, prinsiplərini, habelə belə obyektlərdə mülkiyyət formalarını müəyyənləşdirdi. Ulu öndərin idarəetmə işinin təkmilləşdirilməsi ilə bağlı göstəriş və tövsiyələrini rəhbər tutaraq, meliorasiya və su təsərrüfatında idarəetmə orqanlarının strukturu və fəaliyyət istiqamətləri yeni şəraitə uyğunlaşdırıldı.

Keçmiş kolxoz və sovxozların balansında olmuş daxili təsərrüfat obyektlərinin yenicə yaradılan fermerlər tərəfindən saxlanılmasının və istismarının mümkünsüzlüyünü nəzərə alaraq, onların Meliorasiya və Su Təsərrüfatı Komitəsinin balansına verilməsi barədə qəbul edilən qərar ulu öndər Heydər Əliyevin respublikada sahibkarlığın inkişafına göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Təsərrüfatdaxili suvarma sistemlərinin dövlət himayəsinə götürülməsi onların tamamilə məhv olunması təhlükəsini aradan qaldırdı.

Ulu öndərin göstərişləri əsasında meliorasiya və su təsərrüfatına yönəldilən xarici investisiyaların səmərəliliyini təmin etmək məqsədilə, tikintisi yarımçıq qalmış 150 obyektdən respublika üçün mühüm əhəmiyyət kəsb edən 11 obyekt seçilərək onlarda üçünün – Baş Mil-Muğan kollektorunun tikintisinin, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasının və Naxçıvan MR-də Vayxır su anbarının inşasının birinci növbədə maliyyələşdirilməsi qərara alındı. İslam dünyasının Heydər Əliyevə böyük hörmətinin və ehtiramının təzahürü kimi İslam İnkişaf Bankının rəhbərliyi Baş Mil-Muğan kollektorunun tikintisinin davam etdirilməsinə güzəştli kredit və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin hazırlanmasına əvəzsiz olaraq vəsait (qrant) ayırdı.

Mən bu yazıda ulu öndərimizin şəxsi təşəbbüsü, yaxından köməkliyi ilə Samur-Abşeron suvarma sisteminin qurulması, ölkə ərazisindəki çaylarda sel və daşqın sularının axıdılması istiqamətində geniş miqyaslı, mühafizə tədbirlərinin həyata keçirilməsi, eləcə də meliorasiya və su təsərrüfatında bir sıra iri həcmli işlərin reallaşması ilə bağlı çoxsaylı faktlar sadalaya bilərəm.

Ümumiyyətlə, Azərbaycanda meliorasiya və su təsərrüfatı sistemində son dərəcə vacib olan nəhəng, dəyərli layihələrin reallaşdırılması ilə məşğuluq. Bütün bu işlər müdrik və uzaqgörən rəhbər, qüdrətli tarixi şəxsiyyət, dünya miqyaslı siyasətçi, xalqımızın unudulmaz oğlu Heydər Əliyevin diqqət və qayğısı sayəsində

mümkün olmuşdur. Biz iftixarla deyirik ki, Azərbaycanda su təsərrüfatı kompleksinin yaradıcısı, onun inkişaf konsepsiyasının, meliorasiya və su təsərrüfatı sahəsində həyata keçirilmiş əzəmətli işlərin və əldə edilmiş diqqətəlayiq nailiyyətlərin müəllifi, həm də təşkilatçısı möhtərəm Heydər Əliyevdir.

Azərbaycan Respublikasının tərəqqisinə ömrünün 34 ilini həsr etmiş Heydər Əliyev demişdir: “Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik”. Ümummilli liderimizin bu tövsiyəsi meliorasiya və su təsərrüfatı kompleksi kollektivlərinin başlıca fəaliyyət proqramıdır. Biz həmin proqrama daim sadiq qalacağıq. Heydər Əliyev ideyalarının, bu müqəddəs insanın bizə miras qoyub getdiyi siyasət kursunun davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev əmin ola bilər ki, respublikanın melioratorları və su təsərrüfatı işçiləri bundan sonra daha səylə çalışacaq, yeni ildə qarşıda duran vəzifələrin həyata keçirilməsi üçün var qüvvələrini əsirgəməyəcəklər.

Unudulmaz öndərimiz Heydər Əliyevin həyata keçirdiyi möhtəşəm işlər xalqımıza həmişə xeyir-bərəkət gətirmişdir. Onun qurub-yaratdığı müstəqil Azərbaycan Respublikası etibarlı əllərdədir. Prezident kimi fəaliyyət göstərdiyi dövrdə cənab İlham Əliyev sübuta yetirdi ki, o, ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun ən layiqli davamçısıdır. Bunu möhtərəm dövlət başçımızın hazırkı fəaliyyəti də aydın göstərir. Mən bu fəaliyyətin meliorasiya və su təsərrüfatı ilə bağlı bəzi məqamlarını diqqətə çatdırmaq istərdim. Belə ki, meliorasiya və su təsərrüfatı sahəsində diqqət möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilməkdədir. Təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş bir çox layihələr ölkə Prezidentinin yaxından köməkliyi və diqqəti sayəsində başa çatdırılmış, bir çox layihələr və tədbirlər isə hazırda uğurla həyata keçirilir. Ötən müddət ərzində Baş Mil-Muğan kollektorunun, Samur-Abşeron kanalının baş qurğusunun və 50 kilometrlik hissəsinin bərpası, Xanarx kanalının tikintisi, Vayxır su anbarının, Yuxarı Mil kanalının 4,23 kilometrlik hissəsinin, Ağcabədi rayonu ərazisində yerləşən Laçın qış otlaqlarında məskunlaşmış məcburi köçkünlərin su təchizatının yaxşılaşdırılması üçün Qarqar çayında suqəbledici qurğunun və kanalın tikintisi başa çatdırılmışdır.

Möhtərəm İlham Əliyev 2004-cü ilin iyul ayında Quba-Xaçmaz bölgəsinə səfəri zamanı Samur-Abşeron kanalının yenidənqurulması kompleksində həyata keçirilən tədbirlərlə tanış olarkən, bu işlərin gedişindən razı qalmış və onların gələcəkdə uğurla davam etdirilməsi üçün müvafiq tapşırıqlar vermişdir. Dövlət başçımızın sədrliyi ilə 2005-ci ilin sentyabrın 1-də respublikamızda su təchizatı və meliorasiya sahəsində görülən işlər və perspektiv layihələrlə bağlı keçirilmiş müşavirədə verdiyi tapşırığa əsasən “Samur-Abşeron suvarma sisteminin yenidənqurulması layihəsi” çərçivəsində ümumi su tutumu 268 milyon kubmetr olan Taxtakörpü su anbarının (SES-lə birlikdə) və Taxtakörpü-Ceyranbatan kanalının layihələndirilməsi və tikintisi üçün 2006-cı ildən Dövlət Neft Fondundan müvafiq vəsait ayrılmışdır. Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən 2007-ci ilin noyabrın 8-də su anbarının su elektrik stansiyası ilə birlikdə tikintisinin təməli qoyulmuş, Taxtakörpü su anbarının, Vəlvələçay-Taxtakörpü, Taxtakörpü-Ceyranbatan kanallarının tikintisinə başlanılmışdır. Hazırda tikinti işləri müvəffəqiyyətlə davam etdirilir.

Bununla yanaşı, uzun illər vəsait çatışmazlığı üzündən tikintisi yarımçıq qalmış Tovuzçay su anbarının və Qazax, Ağstafa, Şəki, Salyan, Ucar, Neftçala, Kürdəmir, Saatlı, Hacıqabul və digər rayonlarda çoxlu sayda meliorasiya obyektlərinin tikintisinə başlanılmışdır.

Beynəlxalq təşkilatların ayırdığı kredit hesabına “II-İrriqasiya ” layihəsi çərçivəsində respublikanın Goranboy, Quba, Sabirabad, Saatlı, Xaçmaz, Ağcabədi, Beyləqan, İmişli və Naxçıvan Muxtar Respublikasının Babək rayonları ərazisində 51.559 hektar sahədə suvarma-drenaj şəbəkələrinin bərpası işləri davam etdirilmiş və Bəhramtəpə Hidroqovşağının yenidən qurulması işləri cari ildə tamamlanmışdır.

Respublikamızın qərb bölgəsi üçün çox böyük əhəmiyyətli olan Şəmkirçay su anbarı kimi nəhəng bir layihənin həyata keçirilməsinə başlanılmışdır. Möhtərəm Prezidentimiz İlham Əliyev 2009-cu ilin mayın 25-də su anbarının təməlini qoymuşdur. Hazırda nəqledici tunel və sutullayıcı qurğularda tikinti-quraşdırma işləri davam etdirilir.

Cari ildə obyekt daxilində mövcud Gəncə-Şəmkir şose yolundan tikinti meydançasına qədər uğunluğu 1581 kilometr asfalt örtüklü yolun, su anbarının nüvə tipli torpaq bəndinin və SES-in tikintisi üzrə hazırlıq işləri tam başa çatdırılmış, tunelin və sutullayıcının giriş və çıxış hissələrində işlər yerinə yetirilmişdir. Yolun çəkilişi Şəmkir rayonunun 25 min nəfərdən çox əhalisi olan Seyfəli kəndinin sakinlərinin rahat gediş-gəlişinə imkan yaratmışdır.

Su anbarı və müvafiq suvarma şəbəkələrinin tikilməsi Şəmkir, Samux, Göygöl, Goranboy rayonlarında 50 min hektar sahənin su təminatını yaxşılaşdırmaqla bərabər, 20 min hektar yeni suvarılan sahələrin əkin dövriyyəsinə daxil edilməsinə imkan verəcəkdir.

“**Xalq qəzeti**“.-2009.-11 dekabr.-N 275.-S.4.

## MÜASİR AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN BANİSİ

**Ziya YUSİF-ZADƏ**
Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasının rəisi,
general-leytenant

Millətimiz milli matəm gününün astanasındadır. Odur ki, sözümə qəmli notlarla başlamaq niyyətindəyəm. Altı il bundan əvvəl biz ümummilli liderimiz Heydər Əliyevlə vidalaşdıq, onu vətən torpağına tapşırdıq. Heydər Əliyev və Azərbaycan-ruhən ayrılmaz olan bu anlayışlar cismən də birləşdi, müasir Azərbaycan tarixində, xalqın qəlbində möhtəşəm bir Heydər Əliyev abidəsi yüksəldi. Keçən illər bir daha göstərdi ki, xalq üçün yaşayanlar, qurub-yaradanlar, həyatlarını xalqın yolunda məşəl kimi yandıranlar ölmürlər, millətlə, vətənlə birlikdə əbədi ömür sürürlər. Heydər Əliyevin ömrü məhz bu cür məşəl kimyanın həyatın bariz timsalı idi. Azərbaycan xalqı Heydər Əliyevi yetişdirdiyi kimi, Heydər Əliyev də müasir Azərbaycan dövlətçiliyini yetişdirmiş, qabaqcıl, demokratik Azərbaycan Respublikası səviyyəsinə gətirmişdi. Ulu öndərimiz həmişə deyirdi ki, milli ruhu və milli varlığı müdafiə, eyni zamanda mühafizə etməyin, milli maraqları gerçəkləşdirməyin ən uğurlu forması müstəqil milli dövlətdir. Odur ki, milli-mənəvi dəyərlərlə yanaşı, milli dövlətçiliyin də qorunmasını, inkişafını və dünyaya inteqrasiyasını siyasi fəaliyyətinin əsas hədəfləri hesab etmiş, özünün mənalı ömrünü bütünlüklə bu məqsədlərə həsr etmişdir. Heydər Əliyev dühasının xalqa, milli maraqlara xidməti öz zirvəsinə müasir Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində və müstəqilliyinin əbədiləşdirilməsində çatmışdır.

Bu gün ümummilli lider Heydər Əliyev cismən aramızda olmasa da, əbədiyyətə qovuşsa da, ruhən bizimlədir-onun yüksək amalları, qurub-yaratdığı müstəqil Azərbaycan Respublikası yaşayır və inkişaf edir. Artıq bütün dünyaya bəllidir ki, Azərbaycan xalqı – Heydər Əliyev birliyi tarixin bütün sınaqlarından keçməyə qadirdir və əbədidir. 2003-cü ilin prezident seçkiləri, 2005-ci ilin parlament seçkiləri, eləcə də 2008-ci ilin prezident seçkiləri bir daha göstərdi ki, Azərbaycan xalqı Heydər Əliyevin şəxsiyyətinə böyük ehtiram bəslədiyi kimi, onun Prezident İlham Əliyev tərəfindən uğurla və yaradıcılıqla davam etdirilən siyasətinə də böyük inam bəsləyir. Heydər Əliyev bu ehtiramı, bu inamı bütün mənalı ömrünü Azərbaycan dövlətinin inkişafına, xalqının rifahına həsr etməklə qazanmışdır. Ümummilli liderimiz dövlət təhlükəsizlik orqanlarında çalışanda da, Azərbaycan partiya təşkilatına, respublikaya rəhbərlik edəndə də, SSRİ kimi nəhəng dövlətin rəhbərlərindən biri olanda da, yenidən Azərbaycanda hakimiyyət sükanı arxasına qayıdanda da həmişə milli maraq və mənafelərin real təmsilçisi, fəal qoruyucusu olmuş, bütün qüvvə və enerjisini, təcrübə və bacarığını milli inkişafa, xalqımızın rifahının yüksəlməsinə və ictimai tərəqqiyə sərf etmişdir.

Bu gün artıq bütün dünya təsdiq edir ki, Heydər Əliyevin həyatı öz xalqının tərəqqisinə, regionda və bütün dünyada sülhə və sabitliyə xidmətin nümunəsidir. Odur ki, XX əsrin sonlarında regional və qlobal siyasətin formalaşmasında əhəmiyyətli rol oynamış müdrik siyasətçinin, bütün Cənubi Qafqazda və Xəzər regionunda sülhün və sabitliyin təminatçısı olmuş dahi şəxsiyyətin xatirəsi bütün dünyada ehtiramla yad edilir, həyat və fəaliyyəti öyrənilir. ABŞ-ın dövlət xadimi, dünya şöhrətli politoloq Zbiqnev Bjezinski demişdir: “Heydər Əliyev XX əsrin ən görkəmli siyasətçilərindən biridir. Siyasi hədəfləri düzgün seçməsi və böyük ruh yüksəkliyi ilə rəhbərlik etməsi Heydər Əliyevi tarixi şəxsiyyətlərdən Corc Vaşinqton və Avraam Linkolnla, müasir dövlət xadimlərindən isə Çörçill, Ruzvelt və Şarl de Qolla bir sıraya çıxarır. Onun uzaqgörənliyi və fitri qabiliyyəti, fəhmi və qətiyyəti olmasaydı, Azərbaycan dövlətini yaratmaq da mümkün olmayacaqdı”.

Azərbaycan parlamenti 1991-ci il oktyabrın 18-də Azərbaycanın Müstəqilliyi haqqında Konstitusiya aktı qəbul edərək, suverenliyimizi bütün dünyaya bəyan etmişdi. Lakin tarixin millətimizə bəxş etdiyi bu əvəzsiz sərvəti lazımınca qiymətləndirmək səviyyəsinə yüksələ bilməyən o zamankı iqtidar onu qoruyub saxlamaq qüdrətində olmadığını da nümayiş etdirdi. Müstəqilliyin ilk illərində ölkə başçılarının səriştəsizliyi və xəyanəti ucbatından xalqımız ağlagəlməz məhrumiyyətlərə düçar oldu. 1991-1993-cü illər Azərbaycanın müstəqillik və dövlətçiliyinin “olum ya ölüm” dilemması qarşısında qaldığı, xaos və anarxiya dövrü kimi tarixə düşdü. Bir tərəfdən erməni işğalçıları xarici qüvvələrin dəstəyi ilə tarixi yurd yerlərimizi işğal edir, digər tərəfdən ölkə daxilində hakimiyyət uğrunda çəkişmələr vətəndaş müharibəsinə çevrilirdi. 1993-cü ilin yayında vəziyyət fəlakət həddinə çatdı. Azərbaycan müstəqilliyini və dövlətçiliyini itirmək təhlükəsi ilə üz-üzə qaldı.

Xalqımız belə ağır bir zamanda ümid dolu nəzərlərini Heydər Əliyevə, onun həmin dövrdə yaşayıb fəaliyyət göstərdiyi Naxçıvan torpağına dikmişdi. Qeyd etmək lazımdır ki, ümummilli liderimizin siyasi fəaliyyətinin Naxçıvan dövrü də başdan-başa müstəqil Azərbaycan dövlətinə, müstəqilliyimizin əbədiləşdirilməsinə xidmətdən ibarət olmuşdur. Bu dövr Muxtar Respublikanın adından “Sovet Sosialist” sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpa olunması, 20 Yanvar

faciəsinə siyasi qiymət verilməsi, Naxçıvan əhalisinin SSRİ-nin saxlanılması barədə referendumdan imtina etməsi, 31 Dekabrın Dünya azərbaycanlılarının həmrəylik günü elan edilməsi, nəhayət, o zamankı respublika rəhbərliyinin qərəzli mövqeyi nəticəsində Azərbaycandan ayrı salınmış Naxçıvanın-sərt məhrumiyyətlər, hərbi və iqtisadi blokadalar şəraitində olan vətən torpağının düşməndən qorunub saxlanılması ilə yadda qaldı.

Dünya tarixinə baxsaq görərik ki, həmişə belə faciəli zamanlarda xalqın qüdrətli oğulları vətənin imdadına çatıb, milləti fəlakətdən xilas ediblər. Şəxsiyyətin tarixdə aparıcı rolu məhz belə böhranlı məqamlarda üzə çıxıb, reallaşıb. Xoşbəxtlikdən bu dəfə də belə oldu. Azərbaycan xalqının iradəsi və təkidi ilə təcrübəli dövlət xadimi, görkəmli siyasətçi Heydər Əliyev müstəqil dövlətimizin uçurum qarşısında qaldığı bir vaxtda yenidən böyük siyasətə qayıtdı. Millətin sönməkdə olan müstəqillik arzuları canlandı, xalqımızda bu günə inam, sabaha ümid yarandı.

1993-cü ilin iyun ayında Ali Sovetin sədri seçilən Heydər Əliyev millət qarşısında çıxış edərək, mövcud dövlət böhranının aradan qaldırılmasının yollarını, müstəqil Azərbaycan dövlətinin daxili və xarici siyasətinin əsas istiqamətlərini müəyyənləşdirdi. Onun proqram xarakterli çıxışının əsasını daxili sabitliyin təmin edilməsi, respublikanın parçalanma təhlükəsinin aradan qaldırılması və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması kimi strateji məsələlər təşkil edirdi. Bu həlledici məqamda millətin taleyini təyin etmək məsuliyyətini öz üzərinə götürmüş Heydər Əliyevin qarşısında olduqca ağır və taleyüklü vəzifələr dururdu.

Heydər Əliyev hakimiyyətə qayıtdığı ilk günlərdən təcrübəli siyasətçi, mahir diplomat kimi ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsi istiqamətində fəaliyyətə başladı. Həmin dövrdə Azərbaycanın silahlı qüvvələrinin böyük bir hissəsi ayrı-ayrı cinayətkar əllərdə cəmləşərək siyasi məqsədlərə ölkədaxili çəkişmələrə, hakimiyyət uğrunda mübarizələrə cəlb edildiyi üçün, vətən torpağı müdafiəsiz qalmışdı, ərazilərimiz işğal olunurdu. İlk növbədə bu qeyri-qanuni silahlı dəstələr buraxıldı, siyasi təxribatların, dövlət çevrilişi cəhdlərinin qarşısı məharətlə alındı. Uzun sürən daxili çəkişmələrdən sonra, ölkədə ilk dövrlərdə kövrək olsa da, ictimai-siyasi sabitlik yarandı. Heydər Əliyev uzaqgörənliyinin və müdrikliyinin növbəti göstəricisi Dağlıq Qarabağ müharibəsində atəşkəs istiqamətində danışıqlara başlaması oldu. Həmin dövrdə Azərbaycan ordusunun əks hücumlarından qorxuya düşən erməni tərəfi də danışıqlara getdi və 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs elan olundu. Cənubi Qafqaz regionunda müharibənin dayanması və sabitliyin yaranması xarici neft şirkətlərinin Azərbaycana inamını artırdı və həmin ilin sentyabrında ARDNŞ-lə dünyanın aparıcı neft şirkətləri arasında, respublikamızda iqtisadi tərəqqinin əsasını qoymuş "Əsrin müqaviləsi" imzalandı. Azərbaycanda iqtisadi tənəzzülü cilovlamaq, ordu quruculuğu ilə məşğul olmaq üçün vaxt və imkan yarandı. Bu gün hamıya aydındır ki, o zaman müdrik dövlət başçımız tərəfindən bu taleyüklü addımlar atılmasaydı, dünya şöhrətli politoloq Zbiqnev Bjezinskinin dediyi kimi, Azərbaycan dövlətini yaratmaq da mümkün olmayacaqdı.

Beləliklə, ulu öndər Heydər Əliyevin yenilməz siyasi iradəsi sayəsində ölkədə ictimai-siyasi sabitlik bərpa olundu, həyata keçirilən məqsədyönlü siyasət nəticəsində qanunun aliliyi, insan haqlarının qorunması kimi demokratik prinsiplər bərqərar edildi. Bütün bunlar da Heydər Əliyevin rəhbərliyi ilə yaradılmış və 1995-ci il noyabrın 12-də ümumxalq referendumunda qəbul olunmuş Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında öz əksini tapdı. Konstitusiyanın qəbul edilməsi xalqımızın tarixi ənənələrinə uyğun olan və eyni zamanda ölkəmizdə müasir dünyanın hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu tələblərinə cavab verən dövlətçiliyin formalaşdırılması, siyasi sistemdə və hüquq sistemində möhkəm özülün yaradılması işində mühüm addım oldu. Artıq siyasi və iqtisadi islahatların aparılması və respublikamızın dünya birliyinə inteqrasiya olunması üçün hüquqi baza-konstitusiya yaradılmışdı. Azərbaycan ümummilli lider Heydər Əliyevin müdrik rəhbərliyi ilə mütərəqqi beynəlxalq təcrübəyə əsaslanıb gələcəyə doğru inamla addımlayırdı.

Bu gün dövlətimiz real olaraq müstəqildir, milli maraqlarımıza uyğun xarici və daxili siyasət yeridir. Lakin 1990-cı illərin ortalarında bu müstəqilliyi qoruyub saxlamaq, müasir demokratik dövlət yaratmaq böyük idarəçilik təcrübəsi, diplomatik məharət, siyasi iradə tələb edirdi. Bundan ötrü dünya miqyasında qəbul olunan və tətbiq olunan bütün variantları öyrənmək, onlardan bəhrələnməyi bacarmaq lazım idi. Ümummilli liderimiz dövlətimizə fayda verə biləcək bütün mütərəqqi ideyaları Azərbaycanın reallığını nəzərə alaraq, ardıcıllıqla həyata keçirirdi. Azərbaycanı düçar olduğu bəlalardan qurtarmaq və onu dünyanın sivil ölkələri sırasına çıxarmaq üçün o, öz nadir intellektindən və tükənməz enerjisindən məharətlə istifadə edirdi. Bu bir həqiqətdir ki, millətin gücü və nüfuzu onu təmsil edən rəhbərin şəxsiyyətindən, diplomatiyasının səviyyəsindən birbaşa asılıdır. Dünyanın aparıcı dövlətlərinin respublikamıza marağı bir tərəfdən onun zəngin iqtisadi potensialı və əlverişli geosiyasi mövqeyi ilə əlaqədar idisə, digər tərəfdən ümummilli liderimizin yürütdüyü praqmatik və iqtisadi cəhətdən perspektivli siyasətlə, bu siyasətin yaratdığı ictimai-siyasi sabitliklə bağlı idi. Heydər Əliyevin ölçülüb-biçilmiş, müdrik xarici siyasəti bizə qarşı ehtiyatlı, bəzən isə qərəzli olan ölkələri də öz mövqeyindən daşındıraraq, Azərbaycana xeyirxah niyyətdə olmalarını təmin etməyə, bizə dost ölkələrlə əlaqələri da-ha da

möhkəmləndirməyə, bütün bu münasibətlərdən isə milli maraqlar naminə daha səmərəli istifadə etməyə xidmət edirdi.

Azərbaycan liderinin xarici səfərlərini və keçirdiyi görüşləri hər birimiz televiziya və mətbuat vasitəsi ilə izləyirdik. Həmin görüşlərin və edilən çıxışların əsas hədəfləri Azərbaycanı bütün dünyada tanıtmaq, erməni təcavüzünün iç üzünü açmaq, əsil mahiyyətini beynəlxalq ictimaiyyətə çatdırmaq idi. Bununla bərabər ümummilli liderimiz xarici səfərlərində Azərbaycan diasporunun nümayəndələri ilə görüşməyi və onları Vətənə dəvət etməyi, azərbaycançılıq ideyası ətrafında birləşməyi tövsiyə etməyi də özünə borc bilirdi. Beynəlxalq təşkilatlarda və forumlarda yüksək diplomatiya nümayiş etdirən Heydər Əliyevin analitik təfəkkürünə, həyati əhəmiyyətli məsələlərin mahiyyətinə dərindən nüfuz etmək və onların həlli yollarını göstərə bilmək qabiliyyətinə bütün dünya heyran olurdu. O, özünün tükənməz enerjisi, görkəmli şəxsiyyəti və zəngin intellekti ilə bütün dünyada Azərbaycanın rəmzinə çevrilmişdi. Ümummilli liderimizin müdrik siyasətinin nəticələri göz qabağındadır. Artıq dünyada elə bir nüfuzlu dövlət, ya beynəlxalq təşkilat yoxdur ki, Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını, erməni işğalı altında olan torpaqlarımızın azad edilməsinin vacibliyini təsdiq etməsin. Azərbaycan diasporu da inkişaf edir, Rusiyada, Avropada, Amerikada söz sahibi olan nüfuzlu təşkilatlarımız yaranır.

Həmin dövrdə iqtisadiyyatımızın bazar münasibətlərinə keçirilməsi işi də müvəffəqiyyətlə davam edirdi. Dövlət əmlakının özəlləşdirilməsi sahəsində nailiyyətlər, postsovet məkanında ilk torpaq islahatı, xarici ölkələrlə iqtisadi əlaqələr, xüsusilə Xəzərin Azərbaycan sektorunda zəngin neft-qaz yataqlarının birgə işlənməsi ilə əlaqədar dünyanın aparıcı neft şirkətləri ilə “Əsrin müqaviləsi” ilə başlanmış əməkdaşlıq ölkəmizə xarici investisiya axınını şərtləndirmiş və Azərbaycan iqtisadiyyatının xoş sabahına inamı gücləndirmişdi. Mahiyyət etibarı ilə Heydər Əliyevin yeni neft strategiyasının tərkib hissəsi olan bu sazişlər dövlətimiz üçün həm də strateji əhəmiyyət daşıyır. Bu sazişlərin bağlanması ilə ulu öndər sübut etdi ki, müəyyən məqamlarda uğurlu neft siyasəti ən güclü silahdan daha təsirli və həlledici əhəmiyyət kəsb edə bilir. Məhz bu sazişlərdən sonra dünyanın böyük neft şirkətlərinin, faktiki olaraq, Azərbaycanın maraqlarının lobbiçiləri-nə çevrilməsi, təmsil etdikləri dövlətlərin başçılarının “Azərbaycanda ikinci erməni dövlətinin yaradılması yolverilməzdir”, “Ölkələrin ərazi bütövlüyü dəyişməzdir” kimi rəsmi bəyanatlar verməsi Heydər Əliyevin neft strategiyasının siyasi nailiyyətləri idi.

Müdrik insan və siyasət korifeyi olan Heydər Əliyevin xalqımız qarşısında əvəzedilməz xidmətlərindən biri də müstəqil dövlətimizin müdafiə qüdrətinin ardıcıl olaraq möhkəmləndirməsi idi. O, hələ Sovet imperiyasının dünyaya meydan oxuduğu dövrdə milli zabit kadrlarının gələcək dövlətçilik baxımından vacibliyini nəzərə alaraq, onların yetişdirilməsi istiqamətində məqsədyönlü addımlar atmağa başlamışdı. Bu məqsədlə 1971-ci ildə onun tərəfindən Naxçıvanski adına hərbi məktəbin yaradılması böyük hünər və cəsarət tələb edirdi. Digər müttəfiq respublikaların heç birində belə bir ixtisaslaşmış orta məktəb yox idi. Oranı bitirən gənclər müxtəlif ali hərbi məktəblərə göndərilir, beləliklə gələcək milli zabit korpusu yaradılırdı. ümummilli liderimiz 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra da bu məsələni daim diqqətdə saxlayırdı. 1994-cü ildə Qarabağ müharibəsində atəşkəs əldə olunduqdan və “Əsrin müqaviləsi” imzalandıqdan sonra isə Azərbaycanda ordu quruculuğu sahəsində əsil canlanma başlandı. Respublikada hərbi təhsilə diqqət artırıldı, mövcud hərbi təhsil müəssisələrinin fəaliyyəti müasir standartlara uyğun olaraq yenidən quruldu, güc nazirliklərinin nəzdində yeni hərbi akademiyalar yaradıldı. Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasının yaradılması da ümummilli liderimizin xalqımızın bu gününə və gələcəyinə verdiyi töhfələrdən biridir və məhz buna görə də onun böyük adını daşıyır.

Müstəqil Azərbaycanın sükanı arxasında olduğu 10 il ərzində Heydər Əliyevin dövlətimizin müstəqilliyini möhkəmləndirmək istiqamətində yorulmaz fəaliyyəti və məqsədyönlü siyasəti öz bəhrələrini vermişdir. Bu siyasətin nəticəsində Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsinin həllinin hərb müstəvisindən sülh müstəvisinə keçirilməsi, keçmiş rəhbərliyin siyasi səriştəsizliyi nəticəsində yaxın və uzaq dövlətlərlə pozulmuş əlaqələrin bərpa olunması və qarşılıqlı faydalı əməkdaşlıq səviyyəsinə qaldırılması, dünyanın aparıcı neft şirkətləri ilə 20-dən çox sazişin imzalanması, iqtisadi tərəqqinin və ordu quruculuğunun başlanması, respublika ətrafında yaranmış informasiya blokadasının dağıdılması kimi strateji məsələlər həyata keçirilmişdir. Bu illər ərzində ölkə həyatının bütün sahələrində qazanılan nailiyyətlər məhz Heydər Əliyevin adı ilə bağlıdır. Bakı-Tbilisi-Ceyhan, Neft Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri kimi beynəlxalq layihələr, 33 ölkəni birləşdirən və mərkəzi qərargahı doğma pay-taxtımız olan “İpək Yolu” proqramı da onun imzası ilə həyata vəsiqə alıb. Artıq Azərbaycan dünya birliyində Özünə layiqli yer tutmuşdur, BMT, İKT, GUAM, Avropa Şurası kimi nüfuzlu beynəlxalq təşkilatların üzvüdür, NATO və Avropa Birliyi ilə fəal əməkdaşlıq edir.

Heydər Əliyev özünün məqsəd və məramını ifadə edərək deyirdi: “Mənim tərcümeyi-halım Azərbaycana həsr etdiyim həyatım, fəaliyyətim, əməllərimdir”. Həqiqətən də, Azərbaycanın taleyini Heydər

Əliyevin taleyindən ayrılıqda təsəvvür etmək mümkün deyil. Mən 40 ildən çox bu böyük şəxsiyyətin rəhbərliyi altında çalışarkən, onda dahilərə məxsus olan aşağıdakı xarakterik nadir xüsusiyyətləri daim müşahidə etmişəm: əyilməz iradə, dərin təfəkkür, özünə inam, böyük səbr, siyasi uzaqgörənlik, cəsarət və qətiyyət, fenomenal yaddaş, ensiklopedik bilik, cazibədar natiqlik-öz ideya və fikirlərini sadə dildə xalqa çatdırmaq məharəti. Heydər Əliyev şəxsiyyət kimi nə qədər tükənməz enerjiyə, böyük intellektə və geniş dünyagörüşünə malik idisə, insan kimi bir o qədər də sadə və təvazökar idi, zəngin mənəviyyata, güclü yumor hissinə, həssas və kövrək qəlbə malik idi. Elmin bütün sahələri üzrə geniş və dərin bilgilərə sahib olduğu üçün ədəbiyyatçı ilə ədəbiyyatçı, iqtisadçı ilə iqtisadçı, neftçi ilə neftçi, incəsənət işçiləri ilə incəsənət xadimi kimi danışa bilirdi. Çünki Heydər Əliyev hər şeydən əvvəl, böyük insan və böyük siyasətçi idi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin milli maraqların təmin edilməsi və milli dövlətçiliyin möhkəmlənməsi istiqamətində həyata keçirdiyi titanik siyasi fəaliyyəti barədə söz açarkən ilk növbədə bu günümüzün reallıqlarını qeyd etmək zərurəti yaranır. Bu gün ulu öndərin ölkəmizin inkişafı sahəsində başladığı nəhəng işlər, möhtəşəm layihələr onun layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. 2003-cü ildən başlayaraq Azərbaycan xalqının etimadını şərəflə doğruldan Prezident İlham Əliyev xalqa xidmət etməyin Heydər Əliyev nümunəsini nümayiş etdirir, ulu öndərin qurduğu hüquqi, demokratik dövlətin bütün strukturlarına böyük qayğı və diqqət göstərir. Möhtərəm Prezidentin həyata keçirdiyi müdrik daxili siyasət xalqımızın azad, təhlükəsiz və firavan yaşamasına ünvanlandığı kimi, xarici siyasətinin də əsas prioritetləri regionda sülh və sabitliyin təmin olunması, yaxın və uzaq ölkələrlə qarşılıqlı faydalı əməkdaşlığın qurulması, qlobal enerji – kommunikasiya layihələrinin həyata keçirilməsi, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının sülh yolu ilə azad edilməsi kimi respublikamızda və bütün dünyada dəstəklənən məsələlərdən ibarətdir.

Azərbaycan bu gün regionda həyata keçirilən beynəlxalq layihələrin yalnız iştirakçısı deyil, həm də əsas təşkilatçısı kimi bütün dünyanın diqqət mərkəzindədir. Azərbaycan artıq özünün enerji təhlükəsizliyini tam təmin etmişdir və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm fiqurlardan birinə çevrilmişdir. Xəzərin neft və qaz ehtiyatlarını Azərbaycandan dünya bazarına çıxaran Bakı-Tilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kimi nəhəng beynəlxalq layihələr Prezident ilham Əliyevin siyasi iradəsi ilə reallaşmışdır. Qazaxıstan nefti artıq Azərbaycandan keçməklə Avropa bazarlarına çıxarılır, Türkmənistan qazının Azərbaycan kəmərləri vasitəsilə "Nabukko" layihəsinə qoşulması isə müzakirə mövzusudur. Çini Avropa ilə birləşdirəcək və Azərbaycandan keçəcək "Dəmir İpək yolu", Bakı – Tbilisi – Qars layihəsi də reallaş-maq üzrədir. Azərbaycanın dünyaya inteqrasiyasına və Ermənistanın təcrid olunmasına xidmət edən bu beynəlxalq layihələr regionumuza əminamanlıq gətirdiyi kimi, xalqımıza da firavanlıq gətirir.

rezident İlham Əliyev öz səlahiyyətlərini icra etdiyi müddət ərzində Heydər Əliyev siyasətini uğurla və yaradıcılıqla davam etdirdiyini sübut etmişdir. Dövlət başçımız əsası ulu öndərimiz tərəfindən qoyulan siyasi-ictimai sabitliyi siyasi həmrəyliyin təmin olunması və milli birliyin möhkəmləndirilməsi istiqamətində daha da inkişaf etdirmiş, dönməz bir prosesə çevirmişdir. Azad, demokratik və hüquqi dövlət quruculuğu zamanı isə daxili sabitliyin qorunub saxlanılması ölkədə həm iqtisadi inkişafa, həm də dövlət quruculuğu prosesinə təkan verən, onu sürətləndirən amillərdən biridir. Azərbaycan iqtisadiyyatının inkişafı, xüsusilə də qeyri-neft sektorunun, respublikanın regionlarının inkişafı bu gün Prezident İlham Əliyevin iqtisadi siyasətinin əsas prioritetidir. Bu məqsədlə iqtisadi-sosial sahənin əsas istiqamətləri üzrə əhatəli dövlət proqramları hazırlanır və uğurla reallaşdırılır. Həyata keçirilən elmi cəhətdən əsaslandırılmış, məqsədyönlü iqtisadi siyasət nəticəsində respublika-da böyük uğurlar qazanılmışdır. Son beş ildə Azərbaycan iqtisadi göstəricilərinə görə dünyada birinci olmuş, ümumi daxili məhsul iki dəfə, dövlət büdcəsi isə on dəfə artmışdır. Dünyanın qabaqcıl ölkələrinin maliyyə böhranından əziyyət çəkdiyi bir dövrdə Azərbaycanın iqtisadi inkişafı yüksələn sürətlə davam edir, sürətli inkişaf ictimai-sosial həyatın bütün sahələrini əhatə edir. Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin iqtisadiyyatında keçid dövrünün artıq başa çatdığını bəyan etmişdir.

Hazırda respublikamızda sosial problemlərin həlli başlıca vəzifədir və dövlət büdcəsi də sosial yönümlüdür. Azərbaycanın mərkəzi şəhərlərində və bölgələrində möhtəşəm infrastruktur layihələri həyata keçirilir-yüzlərlə məktəblər, müalicə-diaqnostika mərkəzləri, idman kompleksləri tikilir, körpülər salınır, yollar çəkilir. Minlərlə yeni istehsal sahələri açılır, yüz minlərlə yeni iş yerləri yaradılır. Respublikada minimum əmək haqqı, pensiyalar və müavinətlər mütəmadi olaraq artırılır. Nəzərə alsaq ki, gələcəkdə Azərbaycana neft sektorundan daha böyük gəlirlər daxil olacaq, qeyri-neft sektoru da sürətlə inkişaf edəcək, deməli, əmək haqları və insanların rifahı da yüksələcək, möhtərəm Prezidentin də qeyd etdiyi kimi, Azərbaycanda yoxsul insan qalmayacaqdır.

Bu gün Azərbaycanın həlli müşkülə düşən yeganə problemi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, qaçqınların, köçkünlərin doğma yurdlarına qayıtmasıdır. Prezident İlham Əliyevin həyata

keçirdiyi məqsədyönlü siyasət nəticəsində Azərbaycan Dağlıq Qarabağ münaqişəsini beynəlxalq hüquq normaları əsasında həll etmək və ərazi bütövlüyünü bərpa etmək üçün həm mənəvi, həm hüquqi, həm də hərbi imkanlara malikdir. Dünya birliyi Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, Azərbaycan iqtisadi və siyasi cəhətdən sürətlə inkişaf edir, ordusu güclənir. Bu gün qürurla demək olar ki, Azərbaycanın güclü ordusu var və dövlətin, Prezidentin qarşıya qoyduğu bütün vəzifələri həll etməyə qadirdir. Lakin möhtərəm İlham Əliyev regionda sülhün və sabitliyin təminatçısı olmuş dahi şəxsiyyətin-Heydər Əliyevin siyasi varisi, müdrik və müasir siyasətçi kimi qan, müharibə yolunu yox, sülh yolunu seçir, xalqları faciələrə sürükləmək istəmir, amma mövcud vəziyyətlə barışmaq niyyətində də deyil. Azərbaycan Prezidenti bəyan etmişdir ki, vəziyyət belə davam edərsə və Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində sülh danışıqları erməni tərəfin qeyri-konstruktiv mövqeyi səbəbindən heç bir nəticə verməzsə, Azərbaycan danışıqları kəsərək başqa variantları nəzərdən keçirəcək, işğal altında olan torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir. Hər bir qeyrətli Azərbaycan vətəndaşı da milli maraqlarımıza xidmət edən bu siyasətin həyata keçirilməsində Prezident İlham Əliyevi dəstəkləməli və öz üzərinə düşən vəzifəni ləyaqətlə yerinə yetirməlidir.

“**Respublika**“.-2009.-11 dekabr.-N 269.-S.3.

# HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİ: XARİZMATİK LİDERİN SƏCİYYƏVİ CƏHƏTLƏRİ

**Əli HƏSƏNOV,**
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının
İctimai-siyasi məsələlər şöbəsinin müdiri, tarix
elmləri doktoru, professor

**Yalnız ölməz kimi yaşamağı bacaranlar böyük işlərə qadirdirlər.**
Lük de Kalpye
Vovenarq

Azərbaycan xalqı qədim və zəngin tarixi, dünya xalqlarının siyasi və mədəni irsinə verdiyi töhfələri və yetirdiyi görkəmli şəxsiyyətləri ilə bəşər tarixində özünəməxsus yer tutur. Müasir Azərbaycanın ən mürəkkəb və taleyüklü dövründə dövlətə rəhbərlik məsuliyyətini öz üzərinə götürmüş ümummilli lider Heydər Əliyev xilaskarlıq və quruculuq missiyasını şərəflə yerinə yetirməklə, nəinki xalqımızın ən parlaq siması, eləcə də dünya siyasi elitasının ən görkəmli şəxsiyyətlərindən biri kimi tarixdə silinməz iz qoymuşdur.

Tarixi şəxsiyyətlər təkcə praktiki və siyasi fəaliyyətlərinə görə seçilməmişlər, həm də rasional düşünən, zamanın nəbzini tutmağı bacaran, tarixi zərurəti görən, kütləni öz ardınca apara bilən mənəvi liderlər olmuşlar. Heydər Əliyevin həyat və fəaliyyətinə qısa nəzər salmaq kifayətdir ki, onun qlobal düşüncəyə malik dünya miqyaslı siyasətçi, xarizmatik lider və unikal tarixi şəxsiyyət kimi formalaşmasını şərtləndirən bir sıra səciyyəvi cəhətləri aydın görünsün.

Heydər Əliyevin qeyri-adi, fenomenal şəxsiyyəti, siyasətçi və dövlət xadiminə xas böyük istedadı onun müasirlərinə dərin təsir bağışlamışdır. Burada şübhəsiz, həm onun şəxsi mənəvi keyfiyyətləri, fəhmi, biliyi, iradəsi, həm də siyasi idarəçilik, liderlik qabiliyyəti nəzərə alınır.

Frans Hasselbayn bildirmişdir ki, "liderlik liderin şəxsi keyfiyyətlərindən başlayır". Aforizmə çevrilmiş bu fikir sanki xüsusi olaraq Heydər Əliyev üçün deyilmişdir. O, hələ gənclik yaşlarından hərtərəfli istedadı, geniş biliyi, fiziki göstəriciləri, təşkilatçılığı, başlıcası isə, hər sahədə liderlik qabiliyyəti ilə seçilmişdir. Həyatı boyu əxz etdiyi bilik və məlumatlar, zəngin təcrübə onun xarakterindəki xarizmatik cəhətləri daha da inkişaf etdirmiş, möhkəmləndirmişdir.

Xarizmatik şəxsiyyət olmasına baxmayaraq, Heydər Əliyev dövlət idarəçiliyində rəhbərin xarizmatik xüsusiyyətlərinə əsaslanan forma və metodların tərəfdarı olmamışdır. Azərbaycan tarixinin 1969-1982-ci illəri əhatə edən dövrünə nəzər salarkən, aydın görmək olar ki, Heydər Əliyev SSRİ-nin bürokratik idarəçilik sisteminə yeni baxış, yeni nəfəs gətirən siyasətçi olmuşdur. Məhz Heydər Əliyevin dövründə Azərbaycanda problemlər açıq şəkildə göstərilməyə başladı, tənqid və özünütənqidə geniş meydan açıldı. Sıravi vətəndaşlardan tutmuş yüksək vəzifəli məmurların bu və ya digər məsələlərə münasibətinin öyrənilməsi, mövcud vəziyyətin hərtərəfli təhlili nəticəsində qəbul olunmuş qərarlar formalaşmış stereotiplərdən kənara çıxır və populyarlıq qazanırdı. Məhz Heydər Əliyevin titanik səylərinin, rasional təşəbbüslərinin nəticəsi idi ki, qısa zamanda Azərbaycan iqtisadiyyatına külli miqdarda investisiya cəlb edildi, respublikada güclü sənaye potensialının yaradılmasına başlandı. Konstitusiyada Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması, dövlət orqanlarında milli kadrlara üstünlük verilməsi, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunması, mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının inkişaf etdirilməsi istiqamətində həyata keçirilmiş çoxsaylı tədbirlər isə xalqımızın milli özünüdərkinin yüksəlişinə şərait yaratdı. Mübaliğəsiz demək olar ki, sonrakı illərdə Azərbaycanda milli özünüdərkin geniş vüsət almasına, milli şüurun yüksəlməsinə təkan verən sürətli inkişaf strategiyasının böyük uğurla həyata keçirilməsi Heydər Əliyevin sovet dövründə əsasını qoyduğu rəhbərlik və idarəetmə fəlsəfəsinin aparıcı ideya-siyasi qayəsini təşkil etmişdir.

Heydər Əliyev hətta keçid dövrünün mürəkkəb problemlərini həll etməli olan, müharibə çətinlikləri yaşayan Azərbaycanda demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğu kimi prosesə uğurla rəhbərlik etməyi bacarmış fenomenal siyasətçidir. Ermənistanın Azərbaycana təcavüzü, hərbi əməliyyatların geniş vüsət aldığı, daxili və xarici qüvvələrin ölkədə qarşıdurma, xaos yaratmağa yönəlmiş fəaliyyəti, dövlət çevrilişi cəhdləri belə ümummilli lideri qeyri-populyar qərarlar qəbul etməyə məcbur edə bilmədi. Belə bir şəraitdə o, təbii ki, öz xarizmatik keyfiyyətlərindən, fitri istedadından, siyasi uzaqgörənliyindən, hətta sağlam ənənələrin gücündən maksimum bəhrələnməli idi və bəhrələnirdi. Müasir Avropanın tarixində oxşar misallar çoxdur. Müharibədən sonrakı Fransada ümummilli problemlərin həllində, cəmiyyətin konsolidasiyasında Şarl De Qollun xarizmatik şəxsiyyətinin rolu, habelə həmin dövrdə Almaniyanın dirçəlişində, dünyada almanlara qarşı

formalaşmış stereotipin dağıdılmasında Konrad Adenauerin xidmətləri hamı tərəfindən etiraf olunur. Söhbət tarixi hadisələrin qanunauyğun məntiqi ilə ümummilli lider səviyyəsinə yüksəlmiş şəxsiyyətin xarizmatik keyfiyyətlərindən müstəqil dövlət quruculuğunda, demokratik idarəçilikdə milli mənafelər naminə faydalanmaqdan gedir.

Heydər Əliyevin həyatının müxtəlif dövrləri bir-biri ilə üzvi surətdə bağlıdır. "Mən həyatımın heç bir səhifəsindən imtina etməmişəm" ifadəsini dəfələrlə təkrar edən ümummilli lider bütün həyatı boyu qəti və aydın şəkildə müəyyənləşdirilmiş yüksək prinsipləri və amalları, mənəvi dəyərləri rəhbər tutmuşdur. Bütövlük, tamlıq, ardıcıllıq, ədalətlilik və prinsipiallıq onun xarakterinin mühüm cəhətləri idi.

Ümummilli lider həyatının bütün mərhələlərində, gənclik çağlarından başlayaraq ömrünün sonuna qədər öz ali məqsədini – mənsub olduğu xalqa və cəmiyyətə sədaqət, vicdanlı və əzmkar xidmət prinsiplərini rəhbər tutmuş və bu yoldan heç zaman dönməmişdir. Heydər Əliyev qarşısına qoyduğu bu yüksək amala yetişmək üçün məqsədyönlü və ardıcıl surətdə çalışmış, istənilən situasiyada öz prinsiplərini qoruyub saxlamış və bununla haqlı olaraq fəxr etmişdir.

Böyük Britaniyanın baş naziri olmuş Uinston Çerçill demişdir: "Dövlət xadimini siyasətçidən seçən əsas cəhət odur ki, siyasətçi qarşıdan gələn seçkilərə, dövlət xadimi isə gələcək nəsillərə hesablanmış siyasət yürüdür". İstər sovet dövründə, istərsə də müstəqillik illərində Azərbaycanın rəhbəri kimi Heydər Əliyev öz Vətəninə və xalqına şərəf və ləyaqətlə xidmət etmiş, həyat prinsiplərinə daim sədaqət nümayiş etdirmiş, xalqın istək və arzularını reallığa çevirməyi bacarmış və nəticədə ümummilli lider səviyyəsinə yüksəlmişdir. Maks Veber "Siyasət istedad və vəzifə kimi " əsərində yazırdı: "Siyasi öndərin, yəni rəhbər dövlət xadiminin şərəfi əməllərinə görə istisnasız şəxsi məsuliyyətdir və o, bu məsuliyyətdən kənara çəkilə və ya onu üzərindən ata bilməz, buna haqqı yoxdur". Təsadüfi deyil ki, Heydər Əliyev öz çıxışlarında da vurğulayırdı ki, "mən çox böyük sınaqlardan çıxmış bir adamam və həyatımı da özümə yox, xalqıma həsr etmişəm". (Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, 1997, s.117).

Heydər Əliyevi şəxsiyyət kimi səciyyələndirən əsas cəhətlərdən biri onun güclü iradəyə və tükənməz enerjiyə malik insan olması idi. O, ən çətin məqamlarda, çıxılmaz kimi görünən vəziyyətlərdə sarsılmaz iradə göstərməyi, əzmkarlıq nümayiş etdirməyi bacarırdı. Təhlükəsizlik orqanlarında çalışanda, SSRİ dövründə Azərbaycan rəhbərliyinə gələn zaman, superdövlətin aparıcı şəxslərindən biri kimi fəaliyyət göstərəndə, SSRİ rəhbərliyindən istefa verəndə, 1990-cı ilin yanvarında xalqımıza qəddarcasına divan tutulanda, müstəqil dövlət quruculuğunun sonrakı çətin və keşməkeşli illərində Heydər Əliyev polad iradəsini və bacarığını səfərbər edərək bütün potensial və istedadını Azərbaycanın xoş gələcəyinə həsr etmiş və qalib gəlmişdir.

"Azərbaycan dövlətçiliyinin, müstəqilliyinin keşiyində bir vətəndaş kimi də, bir Prezident kimi də durmuşam, duracağam və bu yolda hər dəqiqə, hər gün şəhid olmağa hazıram", – deyən Heydər Əliyev (Heydər Əliyev. Müstəqillik yolu, s.120) məhz güclü iradəsi və əzmi ilə bütün çətinliklərə sinə gərərək, xalqımızı səfərbər etməyə, öz arxasınca aparmağa və müstəqil dövlətçiliyimizi ardıcıl inkişaf yoluna çıxarmağa qadir olduğunu sübut etdi.

Bütöv bir xalqın, dövlətin taleyində müstəsna xidmətləri olmuş tarixi şəxsiyyətlər səhvlərdən, qeyri-populyar və ya ədalətsiz qərarlardan sığortalanmamışlar. Bəzi hallarda qəbul edilmiş qərarlar onların nüfuzuna mənfi təsir göstərmiş, hətta siyasi karyeralarına son qoymuşdur. Yaxın keçmişdə Almaniya Federativ Respublikasına rəhbərlik etmiş Helmut Kollun aqibəti buna əyani sübutdur. Heydər Əliyev fenomeninin unikallığını səciyyələndirən daha bir cəhət onun həmişə ədalət prinsipinə sədaqət nümayiş etdirməsi, obyektivliyi olmuşdur. Hələ sovet dövründə dahi Nizaminin "Qoy ədalət zəfər çalsın!" kəlamını həyat amalına çevirən, aforizm şəklinə salan, öz əməli fəaliyyətində həmişə həqiqəti və ədaləti əsas tutan bu böyük şəxsiyyət insanların bütün problemlərinə qayğı və həssaslıqla yanaşır, köməyini əsirgəmirdi. Ən çətin və mürəkkəb anlarda belə ədalət hissini itirməyən Heydər Əliyevin qəbul etdiyi qərarlar həmişə ictimaiyyətin rəğbətini qazanmışdır. Özünün də dəfələrlə vurğuladığı "ədalətsizliklə ədaləti bərpa etmək olmaz" fikrini (Heydər Əliyev. Aforizmlər. Bakı, 1997, s.94) bütün şüurlu fəaliyyəti boyu rəhbər tutan ümummilli lider daim ədalətin keşiyində durduğunu sübut etmişdir.

Heydər Əliyev ensiklopedik biliyə malik, məlumatlı şəxsiyyət kimi tanınmışdır. Siyasət və dövlət xadimləri, elm, sənət adamları, təsərrüfat işçiləri ilə söhbətlərində müsahiblər Heydər Əliyevin məlumatlılığına, problemləri dərindən bilmək qabiliyyətinə, xırda təfərrüatlara bələdliyinə heyran olur, ondan yeni cəsarətli ideyalar, təkliflər eşidirdilər. Məhz bu dərin və ətraflı biliklər ona əsaslandırılmış, bitkin qərarlar qəbul etməyə imkan verirdi.

Heydər Əliyevin fitri liderlik istedadı, fenomenal hafizəsi, incə hissetmə və duyma qabiliyyəti, nüfuzedici natiqlik bacarığı ilə insanların beyninə və qəlbinə asanlıqla yol tapması ona geniş xalq kütlələri ilə istənilən səviyyədə ünsiyyət qurmağa və onları öz arxasınca aparmağa imkan verirdi.

Heydər Əliyev həmişə xalqdan güc alır, xalqa arxalanırdı. Ölkə üçün təhlükə yarananda, mühüm siyasi qərarlar qəbul etmək lazım gələndə, o, əsl ümummilli lider kimi xalqa müraciət edir, xalqın rəyini öyrənir, onu səfərbər etməyi bacarırdı. 1993-cü ildə ölkənin cənubunda kriminal-antikonstitusion hərəkətləri, 1994-cü il oktyabr, 1995-ci il mart dövlət çevrilişi cəhdləri zamanı dövlətçiliyin müdafiəsi üçün Heydər Əliyev bilavasitə xalqa müraciət etmiş və lazımi dəstəyi almışdır. 2001-ci ilin avqustunda ümummilli lider Heydər Əliyev milli-mənəvi dəyərlərin qorunması haqqında bəyanatla çıxış etmiş, cəmiyyətdə qızğın müzakirələrin əsasını qoymuşdur. Elə həmin ilin dekabrında söz və məlumat azadlığını, fikir plüralizmini vətəndaş cəmiyyəti quruculuğunun prioritet sahələrindən biri hesab edən Heydər Əliyev KİV rəhbərləri ilə görüşmüş, onlarla media azadlığı sahəsində vəziyyəti müzakirə etmiş və mövcud problemlərin aradan qaldırılması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsinə başlanmışdır. Onun 2002-ci ildə ölkə və xarici sahibkarlarla görüşü, onların problemləri ilə yaxından maraqlanması və müvafiq strukturlara lazımi göstərişlər verməsi ölkədə sahibkarlığın inkişafına mühüm töhfə olmuşdur. Bu görüşlər, təmaslar cəmiyyətdə mühüm yeniliklərə təkan verir, yeni təşəbbüslər doğururdu.

Heydər Əliyev insanların qayğı və problemləri ilə yaşamağa, onların hiss və düşüncələri ilə bütövləşməyə qabil şəxsiyyət idi. O, insanların qəlbindən keçən fikir və duyğularını baxışlarından oxumağı, məsafədən duymağı bacarırdı. Ümummilli liderin bu qeyri-adi keyfiyyətləri istər həyat və fəaliyyətinin ciddi reqlamentləşdirildiyi sovet, istər 1990-cı illərin əvvəllərində Naxçıvan dövründə, istərsə də müstəqil Azərbaycan rəhbərliyinə qayıtdıqdan sonrakı 1993-2003-cü illərdə bariz şəkildə təzahür etdi.

Bu gün də sadə zəhmət adamları, dövlət orqanlarında çalışan insanlar, alimlər, yazıçılar, gənclər, qadınlar, ən müxtəlif zümrələrdən olan vətəndaşlar Heydər Əliyevin onlara köməyi, qayğısı və problemlərinə diqqəti haqqında minnətdarlıqla danışırlar. Vətəndaşlar həmişə ən çətin məqamlarda Heydər Əliyevə müraciət edir, ondan real kömək görürdülər. Bu xüsusiyyətlər onun insanlara sevgisini, humanist duyğularını üzə çıxarır, eyni zamanda, Heydər Əliyevi insanlara daha da sevdirir, xarizmatik liderə çevirirdi.

Fenomenal xüsusiyyətlərinə, güclü xarizmasına baxmayaraq, Heydər Əliyev həmişə açıq, demokratik şəxsiyyət olmuşdur. O, insanların təşəbbüslərini həvəsləndirir, onlara yaradıcı məzmun verirdi. Heydər Əliyev ümumxalq müzakirələrində, müşavirələrdə, iclaslarda çıxışçıları diqqətlə dinləyir, onların təkliflər, ideyalar verməsinə imkan yaradırdı, sonra isə əsaslandırılmış, bəzən qeyri-standart qərarlar qəbul edirdi. Bu qərarlar daha yetkin, effektli olurdu, bir çox hallarda problemi birdəfəlik həll edirdi. Buraya Azərbaycanın müstəqillik taleyi həll olunan zaman qəbul edilmiş çoxsaylı qərarlar, 2001-ci ildə milli-mənəvi dəyərlərin qorunması haqqında bəyanat, Gürcüstanla enerji tarifləri məsələsində nümayiş etdirilən mövqe, vətəndaş cəmiyyəti institutlarının, demokratik təsisatların inkişaf etdirilməsinə münasibət və s. aid oluna bilər.

Heydər Əliyev hər kəsin müstəqil mövqeyini, fərqli düşünmək hüququnu qəbul edir, opponentlərin yerli-yersiz tənqidlərinə hədsiz dözümlülük göstərirdi. Lakin demokratiyanın anarxiya, xaos kimi təqdim olunması Heydər Əliyev üçün qəbuledilməz hal idi. O, demokratiyanı dərk edilmiş nizam-intizam, yaradıcı proses, insan hüquqlarına hörmət, xalqın sağlam potensialından daha geniş istifadə vasitəsi kimi görür, “demokratiya” pərdəsi altında dövlət, xalq əleyhinə fəaliyyət göstərənlərə, xalqı fəlakətə sürükləyən məsuliyyətsiz avantüristlərə münasibətdə barışmazlıq nümayiş etdirirdi.

Heydər Əliyev bütün mürəkkəb situasiyalardan uğurla çıxmağın effektli yolunu tapmağı bacaran siyasi lider olmuşdur. O, istənilən situasiyanı diqqətlə öyrənir, idarə edir, lazımi səmtə istiqamətləndirirdi, nəticədə Azərbaycan dövləti, vətəndaşları uduşlu vəziyyətdə qalırdı, bədxahlar, siyasi macəra həvəskarları isə ağır vəziyyətə düşürdülər.

Politoloqlar, şəxsiyyət nəzəriyyəçiləri liderlik keyfiyyətlərinin aşağıdakı səciyyəvi xüsusiyyətlərini qeyd edirlər:

- qlobal düşüncəyə malik olması;
- cəmiyyətin inteqrasiyası, birləşdirilməsi;
- optimal siyasi qərarların tapılması və qəbulu;
- sosial arbitraj və patronaj, vətəndaşların qanunsuzluqdan qorunması;
- qayda-qanunun və dövlət nizamının mühafizəsi, güclü siyasi iradəsi;
- kütlənin siyasi məqsədlərin həyata keçirilməsinə səfərbər edilməsi və s.

Bu keyfiyyətlərin hər biri dövlət xadimi və ümummilli lider kimi Heydər Əliyevi səciyyələndirən əsas cəhətlərdir, sanki məxsusi olaraq onun haqqında deyilmişdir.

Liderliyin təsnifatını vermiş Maks Veber onları ənənəvi, rasional-leqal və xarizmatik liderlər tipinə bölürdü. O, xarizmatik lideri cəmiyyətin yeniləşməsinin ən mühüm hərəkətverici qüvvəsi, generatoru hesab edirdi.

Rəhbər şəxsiyyətlərin tipologiyasını apararkən onları həm də lider-reformator, lider-inqilabçı, lider-bayraqdar, lider-yanğınsöndürən kimi tiplərə bölürlər.

Lider-reformator cəmiyyətdə əsaslı islahatların təşəbbüsçüsü və təşkilatçısı kimi çıxış edir. Lider-bayraqdar yeni cəlbedici ideyalar verir və xalqı arxasınca aparır. Lider yanğınsöndürən cəmiyyətin vaxtı çatmış, təcili problemlərinə diqqəti yönəldir və onları həll edir. Heydər Əliyevin rəhbərlik fəaliyyətini analiz etdikdə görürük ki, o, bütün bu liderlik tiplərini özündə üzvi şəkildə birləşdirir, həm də müxtəlif situasiyalarda bu və ya başqa keyfiyyətləri bütün gücü ilə ön plana çıxarırdı. Həm də tarixdə çox az şəxsiyyətlər məlumdur ki, müxtəlif lider tiplərini özündə birləşdirsin.

Məlumdur ki, sovet ideologiyası tarixdə şəxsiyyətin rolunu azaldır, cərəyan edən tarixi proseslərin gedişinə həlledici təsirini qəbul etmirdi. Lakin Azərbaycan xalqının dərin fəlsəfi düşüncəsinin məhsulu olan "yaşat ki, yaşayasan; sev ki, seviləsən; tanıt ki, tanınasan" hikmətamiz fikri şəxsiyyət və cəmiyyət, lider və xalq münasibətlərinin düzgün, obyektiv yozumuna açar verir. Yəni cəmiyyəti, xalqı yaşadan, sevən, tanıdan şəxsiyyət, lider özü də bir o qədər yaşamaq, sevilmək və tanınmaq imkanına və haqqına malik olur.

Məhz Azərbaycan xalqını, onun müstəqil dövlətini sevən, parçalanmaqdan, məhv olmaqdan xilas edərək yenidən quran, yaşadan, bütün müasir dünyada tanıdan Heydər Əliyev özü də ümummilli lider səviyyəsinə yüksələrək, tarixi şəxsiyyət kimi yaddaşlara həkk oldu. Müstəqil dövlət kimi Heydər Əliyevin şəxsi nüfuzu sayəsində beynəlxalq aləmdə tanınan Azərbaycan Respublikası, həm də onun gərgin və ardıcıl diplomatik fəaliyyəti nəticəsində dünyada öz mövqelərini möhkəmləndirməyə müvəffəq oldu. YUNESKO-nun baş direktoru Federiko Mayorun dediyi kimi, Heydər Əliyev "bütün dünyanın etiraf etdiyi görkəmli liderdir". (Heydər Əliyev dünyanın gözü ilə. Bakı, 2003, s.17).

Heydər Əliyev öz xalqını, onun milli-mənəvi dəyərlərini, mədəniyyətini, tarixini sevdiyini, qiymətləndirdiyini, qoruyub inkişaf etdirdiyini əməli fəaliyyəti ilə sübut edən liderdir. Azərbaycançılıq ideyasının sədaqətli daşıyıcısı və yorulmaz təbliğatçısı, islam dəyərlərinin qızğın təəssübkeşi və hamisi, milli mədəniyyətimizin, tariximizin vurğunu və dərin bilicisi olan Heydər Əliyev ana dilimizin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və zənginləşməsi, müstəqil dövlətçiliyimizin möhkəmlənməsi sahəsindəki konkret tədbirləri ilə xalqımızın dünya birliyində layiqli yerini tutması, millətimizin millətlər içərisində liderə çevrilməsi işinə mühüm töhfə verən şəxsiyyətdir.

Heydər Əliyevin sosial ədalət, milli-mənəvi və mədəni dəyərlərin qorunması sahəsində çoxşaxəli fəaliyyəti xalqın ona sonsuz sevgi və məhəbbətini qazandırmışdır. Görkəmli dövlət xadiminin öz xalqı qarşısında misilsiz xidmətləri nəinki respublikamızda, həm də onun hüdudlarından kənarda yüksək qiymətləndirilir. Azərbaycanın tanınmış yetirməsi və xalqımızın dostu olmuş Nikolay Baybakov dahi liderin xidmətlərini dəyərləndirərək qeyd edirdi ki, "mən Azərbaycanı və Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram". (Heydər Əliyev dünyanın gözü ilə. s.17).

Heydər Əliyev milli məfkurə daşıyıcısı, sözün geniş, tarixi-fəlsəfi mənasında milli hərəkat lideri idi. Yalnız uzaqgörən, sağlam düşüncəli, müdrik liderə malik olan milli hərəkat, milli inkişaf özünün ali məqsədinə yetişə bilər. Azərbaycanın müstəqillik yolunda üzləşdiyi fəlakət və ümidsizlik zolağı məhz Heydər Əliyevin yenidən hakimiyyət yükünü öz üzərinə götürməsi ilə tədricən sabit və rəvan inkişaf dövrü və beləliklə, işıqlı gələcəyə inamla əvəzləndi.

Heydər Əliyevin aydın təfəkkürü, iti ağlı və səriştəsi xalqımızın və ölkəmizin insan və maddi resurslarını səfərbər etməyə, intellektual və təşkilati potensialını hərəkətə gətirməyə və səmərəli istiqamətə yönəltməyə imkan verdi. Ölkəmizdə xaos, dağıdıcı qüvvələrin cinayətkar fəaliyyəti aradan qaldırıldı, dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə edən quruculuq işləri vüsət aldı. Heydər Əliyevin "ağıl olan yerdə zora ehtiyac yoxdur" müdrik kəlamı (Heydər Əliyev. Aforizmlər, s.96) cəmiyyətimizin gündəlik həyatında, daxili və xarici siyasətdə əsas normaya çevrildi.

Beləliklə, Heydər Əliyev xalqı səfərbər edərək öz arxasınca apara bilən lider olmaqla yanaşı, müstəqil Azərbaycan dövlətinin qurucusu kimi yaradıcı şəxsiyyət keyfiyyətlərini yenidən parlaq şəkildə nümayiş etdirdi. O, mürəkkəb xarici-siyasi vəziyyətdə, yeni dünya düzəninin tələblərini və geosiyasi reallıqları nəzərə almaqla Azərbaycan dövlətinin milli inkişaf strategiyasını müəyyənləşdirdi və elmi-siyasi, tarixi cəhətdən əsaslandırdı. Bu strategiya Azərbaycan Respublikasını milli-mənəvi dəyərlərin inkişafı, demokratik dövlətçiliyin möhkəmlənməsi, vətəndaş cəmiyyəti, insan hüquqlarının təminatı, siyasi plüralizmin bərqərar olması, Avropaya inteqrasiya və bəşəri dəyərlərdən bəhrələnmə yoluna çıxarmışdır. Bu gün Azərbaycan bu yolda inamla və ardıcıl surətdə irəliləyir.

Heydər Əliyev şəxsiyyətini səciyyələndirən mühüm xüsusiyyətlərdən biri milli birlik strategiyasını irəli sürməsi və real olaraq uğurla həyata keçirməsidir. O, xalqımızın və cəmiyyətimizin əsas qüvvələrini azərbaycançılıq, milli dövlətçilik ideyaları ətrafında birləşdirməyə qabil olan lider kimi özünü təsdiq etdi.

Heydər Əliyev bütün həyatı, siyasi fəaliyyəti ilə birləşdirici, kompromis yaradan, inteqrativ şəxsiyyət olduğunu göstərmişdir. O, müasir Azərbaycanda yeganə şəxsiyyət idi ki, cəmiyyətin bütün təbəqələri, sağlam siyasi qüvvələr, intellektual və kadr potensialı, müxtəlif etnik və dini mənsubiyyəti olan insanlar Azərbaycanın təhlükəsizliyi, firavanlığı və təminatlı gələcəyi naminə onun ətrafında birləşdi, ölkə anarxiya və xaos girdabından bütöv, sağlam, dinamik inkişafa qadir halda çıxdı.

Heydər Əliyev əsl ümummilli lider, azərbaycanlıların mənəvi atası kimi Azərbaycanı dünyadakı bütün soydaşlarımızın istinadgahına, siyasi və mədəni-mənəvi mərkəzinə çevirmək yolunda mühüm işlər gördü, diasporumuzun formalaşması sahəsində əvəzsiz xidmət göstərdi. Məhz onun təşəbbüsü ilə Bakıda yüksək səviyyədə Dünya azərbaycanlılarının I qurultayı keçirildi, Azərbaycan bütün dünya azərbaycanlılarının ümid yerinə, mənəvi dayağına çevrildi.

Nəhayət, Heydər Əliyev yeniliyin, mütərəqqi dəyərlərin, ümumbəşəri təcrübənin bütün sahələrdə ardıcıl olaraq tətbiqinin alovlu tərəfdarı kimi çıxış edən lider, novator, islahatçı idi. Ölkə həyatının və dünya inkişafının sosial-iqtisadi, siyasi və mədəni sahələrində mütərəqqi yenilikləri əxz etməyə çağıran və bu istiqamətdə real addımlar atan bu böyük şəxsiyyət Azərbaycanı nəhəng qlobal layihələrin mərkəzi halına gətirdi, postsovet türk-müsəlman respublikaları içərisində demokratikləşmə və iqtisadi islahatlar sahəsində liderə çevirdi. Beynəlxalq enerji layihələri, Böyük İpək yolu, GUÖAM və s. ideyalar Azərbaycanın bilavasitə fəal rolu ilə reallığa çevrilmiş, ölkə həyatının bütün sahələrində köklü dəyişikliklərə səbəb olmuş və geniş perspektivlər açmışdır. Heydər Əliyev doğrudan da əfsanələri həqiqətə çevirən, neçə əsr əvvəlki hadisələri və layihələri yeni tarixi şəraitdə canlandıran, yaradan lider idi.

Bir sözlə, müasir Azərbaycanın həyatının bütün sahələrində təzahür etmiş, demək olar ki, bütün yeniliklər, inkişafa yol açmış qlobal dəyişikliklər bilavasitə ümummilli lider Heydər Əliyevin adı ilə qırılmaz surətdə bağlıdır.

Heydər Əliyevin vəfatı ilə dünya bu fenomenal şəxsiyyətə bir daha yeni nəzərlərlə baxdı, onun siyasət elminə, müasir dünya idarəçilik təcrübəsinə gətirdiyi yeniliklərə bir daha qiymət verdi. Dünyanın ən görkəmli siyasi və dövlət xadimləri onu yekdilliklə qlobal miqyaslı siyasətçi, müasir siyasi proseslərə təsir göstərmiş, Azərbaycanda dövlət idarəçilik məktəbinin əsasını qoymuş lider kimi qiymətləndirdilər.

Ümummilli liderin vəfatından sonra bəzi dövlət xadimlərinin və siyasi liderlərin etirafları Heydər Əliyevin nəhəng siyasi fiqur, dahi şəxsiyyət olduğunu, yaşadığımız region, hətta dünya miqyasında onun baxışlarına, məsləhətlərinə böyük ehtiyac duyulduğunu təsdiq etmişdir. Gürcüstanın keçmiş prezidenti Eduard Şevardnadze bildirirdi: "Heydər Əliyevin yoxluğu mənim üçün böyük itki oldu. Mənim ən böyük məsləhətçim o idi. Bir problem yarananda həmişə ehtiyatlı olmağı tövsiyə edirdi. Onun bütün sözləri, proqnozları həmişə özünü doğruldurdu. Elə ki, Heydər Əliyev dünyasını dəyişdi, məsləhətçisiz qaldım. Nəticəsini də özünüz görürsünüz." Qazaxıstan Prezidenti Nursultan Nazarbayev isə etiraf edirdi ki, o, həmişə Heydər Əliyevin müdrik məsləhətinə və dəstəyinə arxalanıb.

Heydər Əliyevin siyasi irsi, idarəçilik təcrübəsi, siyasi elmə gətirdiyi yeniliklər zaman keçdikcə dünya politoloqları, analitik mərkəzləri tərəfindən daha diqqətlə, daha dərindən öyrəniləcək, müasir siyasi idarəçilikdə geniş tətbiq ediləcəkdir.

Heydər Əliyev öz ölümü ilə ölməzliyə qovuşdu, xalqın taleyində liderlik missiyasını davam etdirdi, cəmiyyətimizi daha sıx birləşdirdi. Onun ideyaları və əməli fəaliyyəti dövlət quruculuğunun, sosial-iqtisadi və mədəni-mənəvi inkişafımızın bütün istiqamətlərində yolumuza həmişə işıq salaraq, bu gün də, sabah da Azərbaycanı firavan gələcəyə istiqamətləndirəcəkdir.

"**Azərbaycan**".-2009.-12 dekabr.-N 276.-S.2.

# MÜASİR AZƏRBAYCANIN QURUCUSU

**Əli ƏHMƏDOV,**
Yeni Azərbaycan Partiyasının sədr müavini – icra katibi,
Milli Məclisin deputatı

**Nər bir xalqın taleyində dahi insanlar müstəsna rol oynayır. Ayrı-ayrı dövrlər də bu gerçəkliyi inkar etmək üçün nə qədər cəhdlər göstərilsə də, tarix onların əbəs olduğunu sübuta yetirib və dahilik möhürü ilə seçilən insanların müstəsna rolunun nə azaldılmasına, nə də kölgədə saxlanılmasına imkan verməyib. Görünür, zamanın hökmü budur ki, müxtəlif dövrlərin və millətlərin yetirdiyi böyük mütəfəkkirlər məhz tarixin özünə məxsus olmalıdır. Çünki tarixi yaradan onlardır.**

**Dünya tarixini, bəşəri sivilizasiyanı yaradan ən mühüm amil qədim dövrlərdən üzü bəri öz xalqına, dövrünə və nəticə etibarilə bütün bəşəriyyətə xidmət göstərmiş dahilərin ideyaları və əməlləridir. Antik dövrün nəhəng zəka sahibləri, sərkərdələr, dövlət başçıları, onların yaratdıqları mədəniyyət abidələri, inşa etdirdikləri qalalar, şəhərlər və qurduqları imperiyalar olmadan bəşər cəmiyyətinin nə tarixini, nə də mövcud durumunu təsəvvür etmək mümkün deyil. Tarix elə həmin mütəfəkkirlərin zəkasının məhsulu olan imperiyaların, onlara xas olan maddi mədəniyyət nümunələrinin, elmin, ədəbiyyatın, mədəniyyətin yaradılması prosesidir.**

Azərbaycan xalqının toplum olaraq formalaşması da məhz xalqımızın dahi övladlarının ideyalarının və əməllərinin bilavasitə nəticəsidir. Azərbaycanın dövlətçilik ənənələri, elmi, mədəniyyəti, incəsənəti onların təfəkkürünün, qəhrəmanlıqlarının, əməyinin və yaradıcılığının məhsuludur. Məhz bunların sayəsində ölkəmiz dünya sivilizasiyasına özünün layiqli töhfələrini verib, dövlətçiliyini yaradaraq qoruyub saxlayıb, müasir dünyanın bir hissəsinə çevrilib.

Azərbaycanın müasir tarixi və bütünlüklə müasir cəmiyyətimiz əsrlər boyu formalaşan ənənələrin, milli-mədəni dəyərlərin və müasirliyin üzvi vəhdəti kimi özünü büruzə verir. Bu baxımdan müstəqil Azərbaycan və onun çağdaş tarixi bir yandan milli-mənəvi dəyərlərin inkişafının, digər tərəfdən isə ümumdünya proseslərinin təsirinin nəticəsi kimi göz önündə dayanır.

Azərbaycanın XX əsrin sonları, XXI əsrin əvvəllərinə təsadüf edən tarixi, şübhəsiz, xalqımızın ümummilli lideri Heydər Əliyevin adı və ideyaları ilə bağlıdır. İctimai rəydə sözügedən qənaətin qəti şəkildə qərarlaşdığını sübut etməyə ehtiyac yoxdur. Heydər Əliyevin böyük keşməkeşlər və kəskin dəyişikliklərlə müşayiət olunan uzunmüddətli bir dövr ərzində Azərbaycana rəhbərlik etməsi, xalq tərəfindən ümummilli lider statusuna layiq görülməsi bu qənaətin nə qədər dərin köklərə və ciddi əsaslara malik olduğunu təsdiq edir.

XX əsrin 70-ci illərindən etibarən Azərbaycanın siyasi həyatı və bütünlükdə cəmiyyətimiz Heydər Əliyevin titanik səyləri sayəsində yeni impuls, daha yüksək inkişaf parametrləri kəsb edərək əslində özünün keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuşdur. Bundan sonra hələ neçə illər də Heydər Əliyev ideyaları həyatımızın başlıca gerçəkliyi, inkişafımızın təməl daşı olaraq qalacaqdır. 2003 və 2008-ci illərdə ölkədə keçirilən prezident seçkilərində Heydər Əliyevin siyasi varisi İlham Əliyevin inamlı qələbəsi, həyata keçirilən siyasətin xalq tərəfindən qətiyyətlə dəstəklənməsi tariximizin Heydər Əliyev mərhələsinin davam etdiyinə bariz misaldır.

Müasir Azərbaycan cəmiyyətinin qurucusu missiyasının məhz Heydər Əliyevə məxsus olması barədə qənaətin formalaşması təkcə onun Azərbaycana uzun müddət rəhbərlik etməsi deyil, daha çox bu rəhbərliyin zəngin məzmuna malik olması faktına əsaslanır. Tam qətiyyətlə və cəsarətlə demək olar ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr onun tarixinin xüsusi, ən intensiv inkişaf mərhələsini təşkil edir. Bu mənada həmin dövrü tariximizin sürətli və hərtərəfli yüksəliş illəri, yeni tarix adlandırmaq bəlkə də daha dəqiq qiymətləndirmə nümunəsi olardı. Məhz həmin zaman kəsiyində Azərbaycan malik olduğu böyük intellektual və insani potensialını, təbii resursları – bir sözlə, milli gücü cəmləyib ölkənin qətiyyətli tərəqqisinin qüdrətli amilinə çevirmək imkanı qazanmış, öz tarixinin keyfiyyətcə yeni bir dövrünə qədəm qoymuşdur. Bu, qədim və zəngin tariximizə müasir Azərbaycan cəmiyyətinin yaradılması mərhələsi kimi daxil olmuşdur.

Böyük tarixi şəxsiyyətlərin rolunu onların yerinə yetirdiyi missiyaya tam adekvat şəkildə qiymətləndirmək həmişə çətin olur. Bunun bir çox səbəbləri göstərilə bilər. Lakin ən çətin cəhət onunla əlaqədardır ki, dünya miqyaslı tarixi şəxsiyyətlərin yerinə yetirdiyi missiya əksər hallarda xronoloji çərçivələrə sığmır, inkişafın sonrakı gedişinə əhəmiyyətli dərəcədə təsir göstərir. Belə tarixi şəxsiyyətlər bir qayda olaraq lideri olduğu xalqın ictimai həyatının gələcək inkişaf konsepsiyasını və strategiyasını müəyyən etməklə onun sonrakı taleyinin də təyin edilməsi məsuliyyətini müəyyən mənada öz üzərinə götürür. Bir sözlə, onlar tarixin

elə özünü yaradırlar. Tarixi yaradan şəxsiyyətə isə qiymət vermək elə tarixin özünə qiymət vermək qədər məsuliyyət tələb edir.

Sözügedən metodika prizmasından yanaşaraq Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyətinin miqyasını və əhəmiyyətini təhlil etməyə cəhd göstərilə bilər. Təhlil predmeti qismində, təbii ki, onun xalq qarşısında 30 ildən yuxarı müddətdə göstərdiyi xidmət, ölkənin inkişaf konsepsiyasının müəyyənləşdirilməsi və həyata keçirilməsi, bir sözlə, Azərbaycan tarixinin Heydər Əliyev dövrü çıxış etməlidir. Lakin tariximizin Heydər Əliyevin dövrü anlayışı kifayət qədər tutumlu olduğundan təhlilin anlaşıqlı mahiyyət kəsb etməsi onu konkretləşdirməyi tələb edir.

Hər şeydən əvvəl qeyd edilməlidir ki, tariximizin Heydər Əliyev dövrü müasir Azərbaycan cəmiyyətinin formalaşması vəzifələrinin yerinə yetirilməsi ilə seçilir. Bu özünü onda göstərir ki, Heydər Əliyevin rəhbərliyi illərində Azərbaycan böyük və sürətli inkişaf mərhələsinə qədəm qoyaraq yeni cəmiyyət parametrləri kəsb etmişdir. Həmin dövrdə ölkənin inkişafı sadəcə prosesin adi axarının təzahürü formasında deyil, bir qayda olaraq, əhəmiyyətli keyfiyyət dəyişiklikləri ilə müşayiət olunan sıçrayış xarakterli yeniləşmə formasında özünü büruzə vermişdir. 1970-1980-ci illərdə Azərbaycan cəmiyyətinin həyatında baş verən sürətli tərəqqi sayəsində ölkənin mahiyyət etibarilə yeni keyfiyyət halına, Azərbaycan tarixinin isə yeni inkişaf mərhələsinə keçməsi inkaredilməz reallıqdır. Azərbaycanın ikinci dəfə yeni keyfiyyət halına və deməli, yeni tarixi mərhələyə daxil olması da, artıq başqa siyasi reallıqlar çərçivəsində, 1993-cü ildə Heydər Əliyevin qayıdışı ilə birbaşa əlaqədardır.

Heydər Əliyevin ölkənin müasir tarixində xidməti və həyata keçirdiyi missiyası sistemində özünü birüzə verən əsas cəhətlərdən biri onun Azərbaycanın hərtərəfli inkişafına nail olmasıdır. Həm də artıq qeyd edildiyi kimi, bu, sadəcə, ənənəvi həyat irəliləyişinin ardıcıllığı sistemindən irəli gələn adi inkişaf yox, keyfiyyət dəyişikliyinə gətirib çıxarmağa qadir olan sürətli yüksəlişdir. Əslində, bu, Azərbaycan cəmiyyətinin yeni durumunun, daha dəqiq deyilsə, yeni, müasir Azərbaycanın özünün yaradılmasıdır.

Heydər Əliyevin yaratdığı yeni cəmiyyətin fundamental xüsusiyyəti onun bu dahi şəxsiyyətin timsalında qüdrətli milli-birləşdirici faktora söykənməsində təzahür edir. Heydər Əliyevin bütün həyatı və fəaliyyəti bir tərəfdən xalqın milli-mənəvi potensialının və resurslarının məcmusu kimi çıxış edirdisə, digər tərəfdən, milli özünüdərk mexanizminin tam mənasında işə salınmasına istiqamətlənmişdi. Bunun sayəsində Heydər Əliyev daim milli-birləşdirici faktor kimi çıxış etmiş və beləliklə də milli inkişaf prosesini bu qüdrətli fundament üzərində kökləməyə müvəffəq olmuşdur. 1970-1980-ci illər rəhbərliyi dövründə Heydər Əliyevin şəxsində təzahür edən milli birlik faktoru məzmun etibarilə Azərbaycanın sürətli inkişafına nail olunmasını və bunun sayəsində milli qürur hissinin möhkəmləndirilməsini ehtiva edirdi. Azərbaycanın az müddətdə keçmiş SSRİ-nin geridə qalmış əyalətindən qabaqcıl respublikalardan birinə çevrilməsi hər bir azərbaycanlıda haqlı olaraq milli qürur hissi yaradır və beləliklə də azərbaycanlılıq, bu millətə mənsub olduğunu dərk etmək fərddə xüsusi iftixar hissi formalaşdırırdı.

Bu faktor Heydər Əliyev hakimiyyətə 1993-cü ildə qayıtdıqdan sonra özünü daha aydın göstərərək həqiqi mənada müasir Azərbaycan quruculuğunun ən vacib şərtlərindən birinə çevrildi. 90-cı illərin əvvəllərinə xas olan separatçılıq, etnik parçalanma meyillərinin ölkənin varlığı üçün yaratdığı real və ciddi təhlükə yalnız Heydər Əliyevin Azərbaycanın rəhbəri olduqdan sonra elan etdiyi və qətiyyətlə həyata keçirdiyi azərbaycançılıq ideologiyası sayəsində dəf olundu. Azərbaycançılıq milli birliyi və vətəndaş həmrəyliyini qoruyub saxlayan, daha da möhkəmləndirən səmərəli faktora çevrildi. Heydər Əliyev isə bu faktoru uğurla hərəkətə gətirərək özünü ölkənin milli birliyinin qüdrətli qarantı kimi təsdiq etdi.

Heydər Əliyevin müasir Azərbaycan cəmiyyətinin formalaşdırılması yönümündə tarixi xidmətləri sırasında müstəqil Azərbaycan dövlətinin qurulması şəksiz birincilik haqqına malikdir. Müasir Azərbaycan özünün həqiqi mahiyyətini xalqın məhz bu arzusunun gerçəkliyə çevrilməsində tapır. Hər bir azərbaycanlının və Azərbaycanın müasir tarixinə az-çox bələd olan hər kəsin etiraf edərək yüksək qiymətləndirdiyi sözügedən tarixi missiyanın həyata keçirilməsinin yalnız ölkəmizin müstəqillik dövrünə təsadüf etdiyini düşünmək həqiqəti yarımçıq dəyərləndirmək nümunəsi olardı. Şübhə yoxdur ki, birbaşa, geniş, tammiqyaslı və dövlətçilik anlayışını tamamlayan bütün atributları nəzərdə tutan milli dövlət quruculuğu Azərbaycanın öz müstəqilliyini bəyan etdikdən sonrakı tarixi mərhələnin adına yazılmağa layiq fövqəladə hadisədir. Ancaq siyasi prosesləri və reallıqlarımızın bütün incəliklərini dəyərləndirərkən etiraf etməliyik ki, müstəqil Azərbaycan dövləti siyasi, iqtisadi, mənəvi və s. cəhətlərdən heç də tam boş müstəvi üzəridə qurulmayıb. SSRİ-nin süqutundan sonra dövlət müstəqilliyini bəyan edərkən Azərbaycan haqlı olaraq özünü 1918-1920-ci illərdə mövcud olmuş Xalq Cümhuriyyətinin varisi hesab etdiyi kimi, milli dövlət quruculuğu prosesində də eyni haqla müstəqillikdən əvvəlki dövrün xalqımıza miras qoyduğu iqtisadi, mədəni, mənəvi potensialdan, habelə dövlət idarəçiliyi ənənəsi və təsisatları sistemindən faydalanmış və faydalanmaqda davam edir.

Sadalanan həmin gerçəkliklərin milli dövlət quruculuğu prosesinin istinad etdiyi zəngin və dəyərli milli sərvətlər olduğunu hesab etmək üçün bütün əsaslar mövcuddur. Həmin sərvətlərin formalaşması və zənginləşməsi işində Heydər Əliyev hələ Azərbaycana 70-80-ci illərdə rəhbərlik etdiyi dövrdə böyük əmək sərf etmiş, misilsiz xidmətlər göstərmişdir. Müstəqil Azərbaycan dövlətinin quruculuğu prosesində ölkədə əvvəllər yaradılmış iqtisadi, elmi-texniki potensialın müstəsna əhəmiyyəti Heydər Əliyev tərəfindən dəfələrlə yüksək qiymətləndirilmişdir. O, haqlı olaraq bidirirdi ki, Azərbaycanda müstəqilliyə qədərki dövrdə əldə edilən iqtisadi potensial, infrastruktur, elm və təhsilin inkişafı, müxtəlif sahələrdə çalışan yüksək ixtisaslı kadrlar olmasaydı, müstəqil dövlət quruculuğu vəzifəsinin həyata keçirilməsi çox ciddi çətinliklərlə qarşılaşardı.

Beləliklə, təfərrüata varmadan Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz tarixi xidmətlər haqqında təhlil apararkən haqlı olaraq onun müstəqil, azad, suveren Azərbaycan dövlətini qurması faktı birmənalı şəkildə vurğulanır. Bu mənada azərbaycanlıların onu müstəqil Azərbaycan dövlətinin memarı sayması üçün bütün obyektiv əsasların mövcudluğu inkaredilməzdir. Eyni zamanda, müstəqil Azərbaycan dövlətinin ümummilli lider Heydər Əliyevin şah əsəri olması barədə ictimai düşüncədə özünə artıq möhkəm yer tutmuş tezisin də öz növbəsində tutarlı dəlillərə söykəndiyini sübuta yetirməyə ehtiyac yoxdur. Bir-biri ilə bağlı olan, bəlkə də eyni hadisənin müxtəlif təzahürü kimi dəyərləndirilə bilən bu iki tezis – Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarıdır və müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir tezisləri ictimai düşüncənin sanksiyalaşdırdığı gerçəklik olaraq qavranılır. Xalq qəti əminliklə onun fərqindədir ki, həyatımızı əhatə edən tarixi gerçəkliyin qərar tapması Heydər Əliyevin fövqəladə xidmətlərinin birbaşa nəticəsidir və bu xidmətlər olmasaydı, Azərbaycanın müasir tarixi tamam başqa qiyafədə meydana çıxmaq zorunda qalardı. Deyilənlərin tarixi analogiya vasitəsilə daha anlaşılan məzmuna gətirilməsinə cəhd etsək, müasir Türkiyənin tarixində Atatürkün oynadığı tarixi missiyanı xatırlamaq yetərlidir. Çoxəsrlik dövlətçilik ənənəsinə malik olan Türkiyə tarixinə Atatürkün Türkiyə Cümhuriyyətinin qurucusu kimi daxil olması ilə türk xalqının ictimai şüuru bu həqiqəti milli düşüncə tərzinin tərkib hissəsinə çevirərək ideoloji məfkurə elementi səviyyəsinə yüksəltmişdir. Başqa sözlə desək, Atatürkçülük çağdaş türk dövlətçilik tarixində başa çatmış hər hansı xronoloji mərhələni deyil, davam etməkdə olan inkişaf və kamilləşmə prosesini əks etdirir. Dövlət quruculuğu missiyasının xüsusiyyəti məhz bundan ibarətdir ki, bu missiya davamlı proses parametrləri kəsb etdiyi halda, tarixi fakt roluna iddia etmək hüququ mənimsəyir. Deməli, siyasi memarın əməyi və xidməti öz ifadəsini təkcə inşa edilən siyasi abidədə deyil, bəlkə də daha çox onun kamilləşməsi və bununla da uzunmüddətli mövcudluğunun təmin etməsi üçün gərəkli olan dəyərlər sisteminin formula edilib milli ideologiyaya çevrilməsində tapır. Bir daha ruhən bizə yaxın olan tarixi analogiyaya müraciət etsək, etiraf olunmalıdır ki, Atatürkün müasir Türkiyə Cümhuriyyətinin yaradıcısı kimi qavranılması onun nə dərəcədə ölkəni fəlakətdən xilas edib dövlətçiliyi qoruyub saxlaması ilə əlaqədardırsa, o dərəcədə də Atatürkçülüyün türk milli ideologiyasına çevrilməsindədir. Çünki məhz bu ideologiya, Atatürk yolu Türkiyə dövlətinin mövcudluğunun və inkişafının fundamental prinsipi və dəyərlər sistemi rolunu oynamaqla onun varisliyini təmin edir.

Söylənilən fikirlər və istinad olunan tarixi analogiya Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin banisi olması haqqında tezisin mahiyyətini və məzmununu daha dolğun qavramaq üçün gərəkli elmi metod rolunu oynaya bilər. Düşünürük ki, belə bir metodun tətbiq edilməsinə ehtiyac var. Lakin bu, əsla ictimai düşüncənin qəbul etdiyi həqiqəti sübuta yetirmək zərurətindən doğmur. Əsas məsələ Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin quruculuğu sahəsində müəyyənləşdirdiyi konsepsiya, prinsip və dəyərlər sisteminin milli ideologiya sistemi kimi nəzərdən keçirilərək ictimai düşüncənin mühakiməsinə təqdim edilməsindədir. Aparılan təhlil və nəzərdən keçirilən tarixi analogiyalar bizi qəti şəkildə bu inama gətirmişdir ki, Heydər Əliyevin öz üzərinə götürdüyü tarixi missiya hər hansı xronoloji çərçivəyə sığmır və onun mahiyyət müəyyənliyi Azərbaycan xalqının ideologiya sisteminin yaradılmasındadır. Həmin ideoloji sistemin onurğa sütununu Heydər Əliyevə məxsus olan dövlətçilik baxışları və onlara əsaslanan dövlət quruculuğu konsepsiyası təşkil edir.

Heydər Əliyevin dövlətçilik baxışları sistemi kompleks xarakter daşımaqla mahiyyətcə müasir Azərbaycanın məfkurə əsası rolunda çıxış edir. Bu tezisə şamil edilən məna tutumunun əsas qayəsi əslində haqqında bəhs edilən baxışlar sisteminin Azərbaycanın inkişaf yolunu müəyyənləşdirməsindədir. Elmi və siyasi ədəbiyyatda artıq dövriyyəyə daxil edilmiş "Heydər Əliyev yolu" anlayışı məhz həmin məna çalarına sahibdir.

Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə Heydər Əliyevin fəaliyyətinə ciddi dəyərlər sisteminə əsaslanmaq kimi keyfiyyət xas olmuşdur. Bu onun göstəricisidir ki, Azərbaycan tarixinin həmin dövrü müasir Azərbaycanın quruculuğunun ciddi konseptual bazaya söykənərək həyata keçirilməsi ilə müşayiət olunmuşdur. Mövcüd rəhbərlik stili və təcrübəsinin əhatəli təhlili və dəyərləndirilməsi indinin özündə də Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və ölkənin inkişafının konseptual əsasını təşkil edən baxışlar sisteminin və dəyərlər məcmusunun fəaliyyətdə olması qənaətinə gəlməyə tam əsas verir. Sözügedən baxışlar və dəyərlər

toplusunun məzmunu və təyinatı isə fikrimizcə, müasir Azərbaycanın inkişaf yolunu müəyyən etmək, onun həyata keçirilməsi amillərini, şərtlərini və resurslarını dəqiqləşdirərək sistemə salmaqdır.

Heydər Əliyevin tarixi xidmətlərinin yalnız müasir Azərbaycanın qurucusu olması ilə məhdudlaşdığını düşünmək bu dahi şəxsiyyətin miqyaslarını düzgün qiymətləndirməmək nümunəsi olardı. Azərbaycan xalqının ümummilli liderinin, sözün həqiqi mənasında, dünya miqyası çağdaş tarixin mübahisəsiz qəbul edilən gerçəkliyidir. Heydər Əliyevin keçmiş sovetlər birliyinin rəhbərliyində təmsil olunaraq dünya miqyaslı proseslərin axarına nüfuz etməsi onun tarixi rolunun geniş parametrlərə malik olduğunu təsdiqləyən faktlardan biridir. Lakin hesab edirəm ki, Heydər Əliyevin beynəlxalq və regional proseslərə yaxından təsiri, bununla da bəşəriyyətin müasir tarixinə öz möhürünü vurması XX əsrin 90-cı illərinə, müstəqil Azərbaycanın Prezidenti vəzifəsini həyata keçirdiyi dövrə təsadüf edir.

Heydər Əliyevin müdrikliyi, siyasi iradəsi və titanik səyləri sayəsində ölkəmizdə müasir cəmiyyətin formalaşması, sabit, demokratik, hüquqi dövlətin qurulması Azərbaycanın həm bütün dünyada, xüsusilə də regionda mövqelərinin möhkəmləndirilməsinə gətirib çıxardı. Belə ki, böyük insan faciəsinə, dağıntılara və qeyri-sabitliyə səbəb olan Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsini nizama salmaq imkanlarını genişləndirmək məqsədilə atəşkəs haqqında sazişin imzalanması regionda sülh və sabitlik üçün ilkin fundament yaratmış oldu. Cənubi Qafqaz dövlətləri və bu regiona yaxın olan dövlətlərin qarşılıqlı münasibətlərində prinsipcə yeni mərhələ başladı.

Heydər Əliyevin səyləri sayəsində Cənubi Qafqaz beynəlxalq təhlükəsizlik sisteminin mühüm məntəqəsinə çevrildi. Azərbaycanın ümummilli liderinin şəxsi nüfuzu və xidmətləri nəticəsində irimiqyaslı beynəlxalq enerji və nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsi dünyanın iri dövlətlərinin diqqətini Cənubi Qafqaza yönəltməklə onların maraqlarını balanslaşdıra bildi. Bununla da regionda sülh və təhlükəsizliyin etibarlı təməli qoyuldu.

Azərbaycanın bəşəri bəlaya çevrilmiş terrorizmə qarşı koalisiyada iştirakı, insanlığa qarşı çevrilmiş hədələrin dəf edilməsində beynəlxalq qüvvələrlə həmrəyliyi və xarici siyasət konsepsiyasının digər fundamental əhəmiyyət daşıyan müddəalarından irəli gələn praktik addımları Heydər Əliyevin müasir beynəlxalq həyatda güclü mövqeyi ilə seçilən dövlət rəhbəri olduğuna dəlalət edir.

Qeyd edildiyi kimi, böyük tarixi şəxsiyyətlərin rolu və həyata keçirdiyi missiya adətən xronoloji çərçivəyə sığmır. Onlar tarixin gələcək inkişaf perspektivlərini müəyyənləşdirir və öz ideyaları ilə ona əhəmiyyətli, həlledici təsir göstərir. Azərbaycanın müasir tarixini, müasir Azərbaycanı yaradan Heydər Əliyev artıq həyatda yoxdur. Lakin onun ideyaları, əməlləri yaşayır və bununla da Azərbaycanın inkişafına, ölkədə ictimai-siyasi həyatın bütün sahələrinə həlledici təsirini göstərir. Ümummilli liderin əsasını qoyduğu, qurduğu müasir Azərbaycanın, müstəqil Azərbaycan dövlətinin tarixinin yeni-yeni səhifələri yazılır. Bu tarixin müəllifi də, heç şübhəsiz, Heydər Əliyevdir.

Heydər Əliyevin formalaşdırdığı müasir Azərbaycan bu gün yaşayır, təkmilləşir və bununla da ümummilli liderin ideyalarının həmişəyaşarlığının təzahürü kimi çıxış edir. Ölkəmizin çağdaş tarixinə çevrilmiş siyasi xətt, onun əsasını təşkil edən prinsiplər ardıcıl surətdə həyata keçirilməkdədir. Heydər Əliyev tərəfindən əsası qoyulan islahatlar, neft strategiyası, balanslaşdırılmış xarici siyasət konsepsiyası, ölkənin iqtisadi potensialı ilə yanaşı, xalqın zəngin milli-mənəvi dəyərlərinin qorunub saxlanması və daha da gücləndirilməsi xətti davam etdirilir.

Tariximizin Heydər Əliyev mərhələsinin bu gün də davam etməsinin digər bir göstəricisi ümummilli liderin ideya və baxışlarının ümummilli məfkurə olaraq ictimai düşüncədə dərin kök salmasıdır. Müstəqil dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik və s. kimi ideya prinsipləri cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz tərkib hissəsinə çevrilərək müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil edir. Azərbaycanın son 30 illik tarixində uğur faktoru kimi özünü təsdiqləmiş Heydər Əliyev yolu onun ardıcılları və xalqı tərəfindən uca tutulur. Dönmədən həyata keçirilən bu yolun bundan sonra da tariximizin Heydər Əliyev mərhələsinin davamlılığını təmin edəcəyi şəksizdir.

Nəhayət, Heydər Əliyev siyasətinin və ideyalarının dönmədən həyata keçirilməsi zərurətinin ictimai tələbatdan doğduğu 2003 və 2008-ci illərin prezident seçkilərinin nəticələrində özünün təsdiqini tapdı. Heydər Əliyevin siyasi varisi İlham Əliyevə ümumxalq sevgisi ölkə əhalisinin Heydər Əliyev siyasətinin dönməzliyinə xalqın özünün zamin durduğunu ifadə edir. Qeyd olunmalıdır ki, ölkə Prezidenti İlham Əliyevin Heydər Əliyev siyasətinə alternativ olmadığını daim qeyd etməsi və onu ardıcıl surətdə həyata keçirmək əzmində olduğunu qətiyyətlə bəyan etməsi də müasir Azərbaycan cəmiyyətinin təməl prinsiplərinin Heydər Əliyev ideyalarına əsaslandığını təsdiqləyən ciddi amillərdəndir.

Heydər Əliyevin Azərbaycan tarixində müstəsna rolu, ümumiyyətlə, onun tarixi missiyası haqqında düşüncələri ümumiləşdirərək vurğulamağı zəruri hesab edirik ki, müasir, yeni Azərbaycanın qurulması və

inkişafı onun nəzəri, konseptual əsasını təşkil edən Heydər Əliyev ideyalarının həyatın tələbatından qaynaqlanaraq xalqın istək və arzularına cavab verməsi ilə əlaqədar olduğu kimi, həm də daha çox şəxsiyyət amili ilə əlaqədardır. Bu tezis Azərbaycan cəmiyyətinin mövcud durumunun ortaya qoyduğu ən mühüm həqiqətlərdən biri kimi ictimai düşüncəyə artıq qəti həkk olunub. Son onilliklər ərzində Azərbaycanın dəf etdiyi çətin, lakin şərəfli yol yalnız Heydər Əliyev şəxsiyyətinin qüdrəti sayəsində tarixi həqiqətə çevrilə bilib. Tarixi şəxsiyyətin rolu təkcə xalqın, millətin istək və arzusunu daha tam və dolğun ifadə etməsində deyil. Doğrudur, şəxsiyyətin tarixi miqyaslarını təyin edən parametrlər içərisində bu keyfiyyət az əhəmiyyət daşımır. Lakin ümummilli lider missiyasını öz üzərinə götürmüş şəxsiyyətin fəaliyyət və xidmətlərinin miqyasları daha çox qarşıya qoyulmuş məqsədlərə nail olmaq, xalqın istək və arzularını həyata keçirmək, bununla da tarixin yeni səhifəsini yazmaq bacarığı ilə ölçülür. Bu mənada, Heydər Əliyevin liderlik missiyası sözügedən parametrlərin hər ikisinə uyğun gəlir və beləliklə də onun şəxsiyyətinin həm bütövlüyünü, həm də nəhəngliyini nümayiş etdirir.

Ümummilli lider Heydər Əliyevin müasir Azərbaycanın ideya əsaslarının yaradılmasında və həmin ideyaların uğurla həyata keçirilməsi işində öz üzərinə götürdüyü tarixi missiya təkcə bugünkü həyatımızın gerçəkliyini təşkil edən nailiyyətlərlə tamamlanmır. Əldə olunanların möhtəşəmliyini etiraf və bütün bunların artıq xalqımızın milli sərvətinə çevrildiyini qeyd edərək onu da xüsusi vurğulamağı lazım bilirik ki, Heydər Əliyevin tarixi missiyasının mahiyyəti daha çox gələcək perspektivlər və inkişaf meyllərində ifadə olunur. Tarixin onun üzərinə qoyduğu şərəfli missiyanı bütün məsuliyyəti ilə qəbul edən Heydər Əliyev Yeni Azərbaycan Partiyasının II qurultayında demişdir: "Müstəqil Azərbaycanın bu gün də, gələcəkdə də yaşaması bizim üzərimizə, mənim üzərimə düşən əsas vəzifədir". Heç kim şübhə etmir ki, ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi inkişaf yolu uzun illər Azərbaycanın tərəqqisi və yüksəlişinin ana xətti olaraq ölkənin firavan gələcəyinə xidmət edəcək. Heydər Əliyev ideyaları və xalqın bu ideyalara hədsiz inamı isə onun yaratdığı müstəqil Azərbaycan dövlətinin yeni-yeni şərəf salnaməsinin yaradılmasının etibarlı təminatı missiyasını yerinə yetirəcəkdir.

"**Azərbaycan**".-2009.-12 dekabr.-N 276.-S.3.

## AZƏRBAYCAN RUHUNUN SİMVOLU

**Əbülfəs QARAYEV,**
mədəniyyət və turizm naziri

**Tarixdə şəxsiyyətin önəmli rolu və fövqəladə təsir imkanları zaman-zaman etiraf olunmuşdur. Böyük, qüdrətli şəxsiyyətlər xalqın sərvətidir. Bu gün unudulmaz xatirəsi böyük hörmət və ehtiramla yad edilən ümummilli lider Heydər Əliyevin həyatı və fəaliyyəti Azərbaycan xalqının və dövlətinin tam bir epoxası ilə qaynayıb qovuşmuşdur.**

Ulu öndər milli şüurun oyanışında, formalaşmasında və möhkəmlənməsində misilsiz xidmətlər göstərmişdir. Məhz buna görə də mədəni-mənəvi intibahımızın təminatçısı Heydər Əliyev Azərbaycan xalqının XX əsrdə yetişdirdiyi nadir tarixi şəxsiyyətdir. Onun zəngin və mənalı həyat yolu elə şərəfli bir tarixdir ki, gələcək nəsillər zaman-zaman bu tarixi öyrənəcək, ondan ibrət götürəcəklər.

Bu anım günlərində ölkəmizin bütün yaradıcı şəxslərini, ziyalı insanlarını qürurlandıran budur ki, ulu öndər xalqın yüksəlişində iqtisadi, siyasi, sosial münasibətlərlə bir sırada elm və təhsilin, mədəniyyətin, milli şüuru formalaşdıran bütün digər əsas faktorların rolunu lazımi səviyyədə dəyərləndirmiş, məhz bu yanaşma nəticəsində müstəqil dövlətçilik ideyası intellektual əsaslar qazanmışdır.

Tarixən zəngin olan Azərbaycan mədəniyyətinin bugünkü səviyyəsi ulu öndərin adı ilə birbaşa bağlıdır. Heydər Əliyev mədəniyyəti xalqın böyük sərvəti hesab edirdi. Buna görə də mədəni-mənəvi dəyərlərin qorunması, təbliği və yeni estetik düşüncəyə məxsus əsərlərin yaradılması üçün nəinki mümkün, hətta mümkün olmayanları da edirdi.

1969-cu ilin iyulunda Heydər Əliyev respublika rəhbərliyinə gələndə çox az adam bilirdi ki, isti yay günlərində Azərbaycanda yeni bir tarixin təməli qoyulur. Ölkə işıqlı, perspektivli bir yola qədəm qoyur. Aydın nitqi, xalqla səmimi ünsiyyəti, tükənməz enerjisi, çıxış və qərarlarındakı qətiyyət Heydər Əliyevi tezliklə insanların gözündə əsil rəhbərə çevirdi. Heydər Əliyev Azərbaycanın siyasi, iqtisadi, sosial həyatına yeni nəfəs, coşqun ruh gətirdi. Bütün sahələrdə canlanma başladı. Ölkəyə rəhbərliyinin birinci dövründə fabrik və zavodlar tikilib istifadəyə verildi, yeni yaşayış massivləri salındı, böyük uğurlara imza atıldı. Bu iqtisadi sıçrayış xalqın sosial həyatına da sirayət etdi.

Respublikamızın iqtisadi bazasının gücləndirilməsi, əhalinin gün-güzəranının yaxşılaşdırılması, elm, təhsil, səhiyyə və mədəniyyətin inkişafı ilə paralel aparılırdı. O illər Azərbaycanın tarixinə mədəniyyətin də tərəqqi dövrü kimi daxil oldu. Mədəniyyətimizin inkişafı ilə bağlı misilsiz işlər görüldü. İstər paytaxtımızda, istərsə də respublikamızın ucqarlarında yüzlərlə kinoteatr, klub, mədəniyyət evi, kitabxana, muzey tikildi, parklar salındı. Kino, musiqi, teatr, təsviri sənət, memarlıq, heykəltəraşlıq və mədəniyyətin digər sahələrində görünməmiş uğurlar qazanıldı. Mədəni irsimizin qorunması üçün tarixi əhəmiyyətli qərarlar qəbul olundu. Bütün bunlar – rəhbər və xalq vəhdəti, siyasi fəaliyyət və xəlqilik prizmasından yanaşma xalq arasında və eləcə də elitar aləmdə canlanma yaratdı. Mədəniyyət tariximizdə iz qoyan görkəmli bəstəkar, rəssam, şair, yazıçı, heykəltəraş, müğənni, elm, sənət xadimləri yetişdi. Onların Bakıda və Moskvada yubileylərinin keçirilməsi, fəaliyyətlərinin lazımi dərəcədə qiymətləndirilməsi ənənə halını aldı. Bir çox sənət adamlarına Heydər Əliyevin nüfuzu və təşəbbüsü hesabına SSRİ-nin ən yüksək mükafatları verildi. 1993-cü ilin iyununda xalqın istəyi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycan mədəniyyətinə yeni nəfəs verdi. Elm, sənət adamları, xalqımızın dəyərli ziyalıları dövlətin yüksək qayğısı ilə əhatə olundu. Onlarca sənətkara fəxri ad, Prezident təqaüdü, müxtəlif mükafatlar verildi. Unudulmuş mədəniyyət xadimlərinin yubileyləri keçirildi. İşinin çoxluğuna, vaxtının məhdudluğuna baxmayaraq, ulu öndərimiz mütəmadi olaraq mədəniyyət xadimləri ilə görüşlərə zaman ayırdı.

Heydər Əliyev xalqın inkişafında ədəbiyyatın, kinonun, teatrın, təsviri sənətin, musiqinin, mədəniyyətin digər sahələrinin rolunu çox düzgün qiymətləndirirdi. Təbii ki, işıqlı sabaha gedən yol təhsildən, mədəniyyətdən keçir. Ümummilli liderin mədəniyyətimizə göstərdiyi diqqət və qayğı da bu həqiqətə söykənirdi.

Heydər Əliyevin böyük sənətkarlara qayğısı və məhəbbəti, Azərbaycana, vətəninə nəhayətsiz sevgisindən qaynaqlanırdı. Məhz hakimiyyətinin birinci dövründə onun təqdimatı ilə Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Süleyman Rüstəm, Süleyman Rəhimov, Rəsul Rza və digərləri Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldülər.

Ulu öndər Azərbaycan musiqisinin dünya arenasına çıxması üçün əlindən gələni edirdi. Bütün həyatını öz millətinin xoşbəxtliyinə bağlayan Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə başqa sənət adamları ilə yanaşı, bəstəkar və musiqişünaslarımıza da çox böyük qayğı və ehtiramla yanaşmışdır. Hələ 1969-1982-ci illərdə SSRİ-nin digər respublikaları ilə müqayisədə böyük teatrların səhnələrində, əzəmətli konsert salonlarında

Azərbaycanın görkəmli bəstəkarlarının səhnə əsərlərinin tamaşaya qoyulması, simfonik və kamera musiqisinin uğurla səsləndirilməsi bilavasitə Heydər Əliyevin dəstəyi ilə həyata keçirilirdi. Məhz onun uzaqgörənliyi, millətinə sonsuz məhəbbəti sayəsində Azərbaycan musiqisi təkcə SSRİ-də deyil, bütün dünyada tanınmışdır.

Dünyasını dəyişən görkəmli sənətkarların xatirələrinin əbədiləşdirilməsi üçün ev muzeylərinin yaradılması, əzəmətli heykəllərinin ucaldılması, yubileylərinin təntənəli şəkildə qeyd edilməsi, həmçinin onların adının küçə, məktəb və mədəniyyət ocaqlarına verilməsi məhz bu dahi şəxsiyyətin adı ilə bağlıdır.

Dövlət müstəqilliyimizin ilk illərində bazar iqtisadiyyatına keçidlə əlaqədar yaranmış sosial problemləri uğurla həll edən Heydər Əliyev yaradıcı ziyalıların əməyini yüksək qiymətləndirirdi. Onun təsis etdiyi Prezident təqaüdünü incəsənətimizin inkişafının təmin edilməsində tarixi addım kimi dəyərləndirmək olar. Bu yüksək təqaüdlə təltif olunanlar sırasında görkəmli elm xadimləri, yazıçı və şairlərlə bərabər, Tofiq Quliyevin, Cövdət Hacıyevin, Süleyman Ələsgərovun, Hacı Xanməmmədovun, Şəfiqə Axundovanın, Hökumə Nəcəfovanın, Məmməd Cavadovun, Arif Məlikovun, Vasif Adıgözəlovun, Xəyyam Mirzəzadənin, Azər Rzayevin, Ramiz Mustafayevin, Tofiq Bakıxanovun, Aqşin Əlizadənin, Firəngiz Əlizadənin, Ramiz Mirişlinin, Musa Mirzəyevin, Nəriman Məmmədovun, Oqtay Zülfüqarovun, Elza İbrahimovanın, Oqtay Kazımovun, Yaşar İmanovun, musiqişünas Elmira Abasovanın, Ramiz Zöhrabovun və başqalarının adlarını çəkə bilərik.

1995-2003-cü illər ərzində ulu öndər Heydər Əliyevin sərəncamı ilə görkəmli bəstəkarlarımızdan Tofiq Quliyev, Arif Məlikov, Müslüm Maqomayev yüksək mükafata – "İstiqlal" ordeninə layiq görülmüş, Azərbaycan Respublikasının xalq artistləri Cövdət Hacıyev, Süleyman Ələsgərov, Hacı Xanməmmədov, Vasif Adıgözəlov, Xəyyam Mirzəzadə, Azər Rzayev, Ramiz Mustafayev, Tofiq Bakıxanov, Aqşin Əlizadə, Musa Mirzəyev, Ramiz Mirişli "Şöhrət" ordeni ilə təltif olunmuşdular.

Azərbaycanın xarici ölkələrlə sıx musiqi əlaqələrinin yaranmasını və inkişafını daim diqqət mərkəzində saxlayan, görkəmli sənətkarları respublikamıza dəvət edən dahi şəxsiyyət Heydər Əliyev bununla da Bəstəkarlar İttifaqının beynəlxalq əlaqələrinin daha da genişlənməsinə şərait yaradırdı.

Heydər Əliyev mədəni irsin təbliğinə, xalqın incəsənətə marağının artmasına xidmət edən sahələrə də xüsusi diqqətlə yanaşırdı. Ötən əsrin 70-ci illərində Bakıda Opera və Balet Teatrı, Azərbaycan Milli Dram Teatrı bərpa edilmiş, Musiqili Komediya Teatrı və Gənc Tamaşaçılar Teatrı yenidən tikilmiş, Şəkidə, Sumqayıtda, Ağdamda teatrlar bərpa edilmiş, Lənkəranda yenidən teatr açılmışdı ki, bu da Azərbaycanda səhnə sənətinin, teatr həyatının çiçəklənən dövrü idi.

Heydər Əliyevin Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində təhsil alması (1939-1941) və rəssamlıqla məşğul olması onun gözəlliyi duymasına və dəyərləndirməsinə yaxından kömək edirdi. Hakimiyyətə ilk gəlişindən etibarən Heydər Əliyev milli təsviri sənətimizin inkişafına münbit şərait yaratdı.

Sovet dönəmində Bakı kimi böyük bir şəhərdə müasir tələblərə cavab verən bir sərgi salonunun olmamasını qəbul edə bilməyən Heydər Əliyev ilk növbədə, belə bir mədəniyyət mərkəzinin yaradılmasına qərar verdi. Paytaxtın lap mərkəzində Hökumət evinin yaxınlığında tanınmış ziyalıların yaşadığı çoxmərtəbəli yeni binanın iki mərtəbəsində geniş və işıqlı sərgi salonu açıldı.

Sosialist iqtisadi sisteminin dağılmasından sonra rəssamların maddi vəziyyətinin çətinləşməsini həssaslıqla duyan dövlət başçısı onların müxtəlif nəsillərinə xüsusi Prezident təqaüdü təyin etdi, əsərlərin satın alınmasına görə müəyyən olunmuş qonorarların həcmini artırdı, yaradıcılıq ezamiyyətlərinin çoxalmasına, xarici ölkələrdə sərgilərin mütəmadi xarakter almasına şərait yaratdı.

Təsviri sənətlə məşğul olanlarla bağlı imzalanan hər bir fərman və sərəncam bütünlükdə Azərbaycan incəsənətinin yaşamasına, daha da inkişafına və beynəlxalq aləmdə təbliğinə yönəlmişdi.

Heydər Əliyevin ölkəyə rəhbərliyinin ilk illərindən başlayaraq, onun iştirakı ilə böyük Azərbaycan şairi və mütəfəkkiri Nəsiminin 600 illiyi, Azərbaycan Dram Teatrının 100 illiyi, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Məmməd Səid Ordubadi, Səməd Vurğun, Aşıq Ələsgər kimi sənətkarların yubileyləri keçirilmişdir. Yubiley tədbirləri Ümumittifaq, beynəlxalq miqyasda əks-səda doğurur, Bakıda başlayıb dünyanın mötəbər salonlarında tamamlanırdı.

Heydər Əliyev mədəniyyəti, onun bütün sahələrini sevən insan idi. O, bu sahəyə böyük töhfələr vermişdi. Milli kinonun, eyni zamanda, çağdaş Azərbaycan ədəbiyyatının formalaşmasında da bu əvəzsiz şəxsiyyətin böyük rolu olmuşdur. Hamımıza məlumdur ki, hələ sovetlər dönəmində "Nəsimi", "Babək", "Nizami", "Dədə Qorqud" və digər maraqlı ekran əsərləri birbaşa Heydər Əliyevin təşəbbüsü ilə çəkilmişdir. O zaman bir sıra milli xüsusiyyətlərinə görə nümayişi qadağan olunmuş filmlərin demək olar ki, hamısı Heydər Əliyevin köməyi və qayğısı sayəsində ekranlara yol tapmışdır. Ulu öndər müstəqillik dövründə də mədəniyyətin digər sahələri kimi kinonun və ədəbiyyatın inkişafına da böyük diqqət göstərmişdir. Dövlət sifarişi ilə çəkilən filmlərin sayının ilbəil artırılması, bir sıra yaradıcı ictimai təşkilatlar kimi Yazıçılar Birliyinin də fəaliyyətinə yaxından kömək göstərməsi deyilənlərin əyani sübutudur. Ulu öndərin mükəmməl mədəniyyət siyasəti və həmin

siyasətin bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi nəinki bir məqalənin, hətta cild-cild kitabların tam əhatə edə bilməyəcəyi qədər zəngin faktlarla bizi üz-üzə qoyur. Şübhəsiz ki, gələcəkdə bu sahədə çoxsaylı tədqiqat əsəri işıq üzü görəcəkdir. Dahi rəhbərin mənalı həyatı, böyük xidmətləri və zəngin irsi gələcək nəsillərimizə milli düşüncə məktəbidir.

"Xalqımız öz mədəniyyəti, elmi ilə yüksəlibdir. Biz mədəniyyətə nə qədər diqqət yetirsək, qayğı göstərsək, mədəniyyət xadimlərinin yaradıcılığı üçün imkanlar yaratsaq, xalqımızı da o qədər yüksəldəcək, xalqımızın mənəviyyatını daha da yüksəklərə qaldıracağıq. Müstəqil Azərbaycan dövlətinin, Azərbaycan Prezidenti kimi mənim də siyasətimin böyük bir qolu da bundan ibarətdir. Əmin ola bilərsiniz ki, bu siyasəti mən bundan sonra da davam etdirəcəyəm" – ümummilli lider Heydər Əliyevin 1998-ci il oktyabrın 10-da Musiqili Komediya Teatrının binasının təmir-bərpadan sonra açılışında dediyi bu sözlər, xalqının milli-mənəvi dəyərlərinə bəslədiyi hörmətin nəticəsi idi. Bunu ölkədə hakimiyyətdə olduğu illərdə sırf mədəniyyət sahəsi ilə bağlı verdiyi fərman və sərəncamlar da təsdiqləyir. Təsadüfi deyildir ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində ölkəmizdə çoxsaylı fundamental mədəniyyət ocaqları, teatr və konsert müəssisələri, mehmanxana və iaşə obyektləri tikilərək əhalinin istifadəsinə verilmişdir.

Çox fərəhlidir ki, xalqımız, o cümlədən yaradıcı insanlar, sənət adamları, turizm ictimaiyyəti ulu öndərin mədəniyyətin inkişafı naminə gördüyü saysız-hesabsız işləri həmişə böyük minnətdarlıq duyğusu ilə xatırlayır, Heydər Əliyevin ruhu qarşısında hesabat verirlər.

Respublikamızın mədəniyyət ictimaiyyəti – yazıçılar, şairlər, rəssamlar, musiqiçilər, teatr və kino xadimləri Heydər Əliyevin əli ilə yaradılmış, ondan yadigar qalan mədəniyyət saraylarında, konsert, sərgi salonlarında, tamaşa zallarında xalqla görüşərək ulu öndərə ehtiramlarını yaradıcılığın dili ilə ifadə edirlər.

Ümummilli liderin yüksəliş yolunu böyük uğurla yeni nailiyyətlərlə irəliyə doğru aparan Prezident İlham Əliyevin mədəniyyət və turizm sahəsinin hərtərəfli inkişafı üçün göstərdiyi diqqət və qayğı, bu sahədə qəbul etdiyi qərarlar bir daha təsdiqləyir ki, Heydər Əliyevin milli-mədəni intibah amalı bu gün də yaşayır, ümummilli təkamülə təminat yaradır. Ölkəmizin hər guşəsində yüksək keyfiyyət və zövqlə həyata keçirilən tikintibərpa işləri, yeni mədəniyyət sarayları, zəngin eksponatlara malik olan muzeylər, müasir tələblərə cavab verən kitabxana-informasiya mərkəzləri, tarixilik və müasirliyin vəhdəti ilə paytaxtımızın gözəlliyinə rəng qatan teatr və konsert salonları hörmətli Prezidentin Azərbaycan mədəniyyətinin tərəqqisi və dünyaya inteqrasiyası istiqamətində gördüyü işlərin bir hissəsidir. Prezident İlham Əliyevin diqqət və qayğısı ilə son beş ildə mədəniyyət və turizm sahəsində idarəetmənin təkmilləşdirilməsi də daxil olmaqla, dövlət proqramlarının qəbulunadək əhatəli və kompleks şəkildə həyata keçirilən islahatlar bu vacib sahənin işıqlı gələcəyinə inam və əminlik yaradır.

Məhz buna görə də bu gün bütün Azərbaycan vətəndaşları kimi mədəniyyət və turizm ictimaiyyəti də Heydər Əliyev siyasi məktəbinin yetirməsi və onun layiqli davamçısı cənab İlham Əliyevin ətrafında sıx birləşərək onun siyasi xəttini qəlbən müdafiə edir və bu siyasətin xalqımızı firavan, xoşbəxt gələcəyə aparacağına inanır.

Ulu öndərimizin xatirəsinə həsr olunmuş bu məqaləni mədəniyyətimizin yaxın dostu və hamisi, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın böyük rəhbər haqqında dediyi bu qiymətli sözlərlə bitirmək istərdim: "Heydər Əliyev … 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran Vətəndaş, Şəxsiyyət, Lider olmuşdur".

"**Azərbaycan**".-2009.-12 dekabr.-N 276.-S.5.

# AZƏRBAYCAN-GÜRCÜSTAN DOSTLUĞUNUN ƏN ŞANLI SƏHİFƏLƏRİNİN MÜƏLLİFİ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVDİR

**Aslan ASLANOV,**
Azərbaycan Kənd Təsərrüfatı nazirinin müavini

**Qafqazın müstəqilliyi və azadlığı işində Heydər Əliyev fenomeninin indinin özündə nə qədər böyük rol oynadığını xalq hələ sonra biləcək.**

**Eduard Şevardnadze**

Doxsanıncı illərin o gərgin günlərində Şəmkir rayonunda işləyirdim. İcra hakimiyyətinin başçısı kimi heç şübhəsiz ki, bütün hadisələrin önündə idim. Xarici və daxili qüvvələrin pozucu əməllərinin qarşısının alınması, torpaqlarımızın qorunması, iqtisadiyyatın inkişafı, əhalinin əhval-ruhiyyəsinin yüksəldilməsi üçün gərgin işləməli olurduq. Bu sahədə Prezident Heydər Əliyevin ümumən respublikaya, eləcə də Şəmkir rayonuna göstərdiyi tükənməz qayğı və diqqətin şahidiyəm. Ölkənin vəziyyəti heç də rəvan getmədiyi o gərgin günlərdə ulu öndər müntəzəm surətdə qonşu Gürcüstanda yaşayan soydaşlarımızın da taleyi ilə maraqlanır, onların dədə-baba yurdlarında qalıb yaşamalarının və ümumən Azərbaycanla Gürcüstanın tarixi dostluğunun qorunub saxlanmasının qeydinə qalırdı. Bizim üçün çox xoş idi ki, ulu öndər bu sahədə şəmkirlilərin köməyinə arxalanır və qonşu ölkədəki soydaşlarımızın gün-güzəranının yaxşılaşdırılması üçün konkret tapşırıqlar verirdi. Aradan illər keçir. Şadam ki, geniş qəlbli şəmkirlilərin köməyi ilə o zaman biz ulu öndərin Gürcüstanla bağlı tapşırıqlarını yerinə yetirə bildik.

Sovet imperiyası süquta uğradıqdan sonra Azərbaycan və Gürcüstan respublikaları azad, suveren və müstəqil dövlətlər kimi dünyanın bütün ölkələri və beynəlxalq təşkilatlar tərəfindən tanındılar.

Bundan sonra, xüsusilə, 1994-cü ildən başlayaraq Azərbaycan və gürcü xalqlarının qədim dostluq və mehriban qonşuluq əlaqələrində, eləcə də hər iki müstəqil ölkənin mədəni-iqtisadi inkişafında yeni dövr, yeni mərhələ başlanmışdır. Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Şəmkirin qədim tarixinə daha bir şərəfli səhifə də əbədilik həkk olundu: Şəmkir-Gürcüstan dostluğu! O zaman bu dostluğun yolu od-alov içindən keçirdi.

1988-ci ildən üzü bəri ata-baba torpaqlarımız, bütün sərhəd bölgələrimiz Ermənistan silahlı birləşmələrinin əli ilə müharibə zonasına çevrilərdə bu münaqişənin alovları qonşu Gürcüstanda da şölələnməyə başladı.

Dağlıq Qarabağda və ətraf rayonlarda olduğu kimi, qonşu Gürcüstan respublikasının azərbaycanlılar yaşayan bölgələrində də nankor ermənilər tərəfindən məqsədyönlü şəkildə milli mənliyimiz təhqir olunurdu. Terror terroru, faciə faciəni əvəz elədikcə camaat qorxu, həyəcan içində çaş-baş qalmışdı. Bir növ, arxasız, köməksiz olan soydaşlarımızın Azərbaycana köçhaköçü, kütləvi axını başlanırdı.

Ölkəmizin öz problemlərinin başdan aşdığı bir dövrdə respublika Prezidenti Heydər Əliyev əzabkeş soydaşlarımızı əsla unutmur, nəyin bahasına olursaolsun, qaçqın axınının qarşısının alınmasını təxirəsalınmaz bir vəzifə kimi irəli sürdü.

Bu barədə ulu öndər Şəmkirin icra başçısı kimi mənə bir sıra konkret tapşırıqlar verdi. Vəzifə aydın idi. Gürcüstanın azərbaycanlılar yaşayan bölgələrində ilk növbədə soydaşlarımızın itirilmiş inamını, etibarını, tapdalanmış milli hisslərini dirçəltmək, elindən-obasından bir növ, əllərini üzmüş insanları yenidən öz dədə-baba yurdlarına bağlamaq kimi mühüm bir prosesin həyata keçirilməsi ön plana çəkilmişdi. Ulu öndər vəziyyətlə müntəzəm maraqlanır, bizə yeni-yeni tövsiyələr, tapşırıqlar verirdi.

Mənəvi və humanitar yardım yüklü ilk maşın karvanı Dmanisi rayonuna yola salındı. Həftələr, aylar keçdikcə xeyriyyə karvanları daimi xarakter aldı. Soydaşlarımız hiss elədilər ki, müstəqil ölkəmiz, Azərbaycan xalqı, xüsusilə? dünya şöhrətli Heydər Əliyev mövcud problemlərlə dərindən maraqlanır və onlara hər an, hər cür kömək göstərməyə hazırdır. Nankor ermənilərin, eləcə də Qamsaxurdiya rejiminin fitnə-fəsadından, terror əməllərindən sarsılaraq evini-eşiyini yiyəsiz qoyub Azərbaycana gəlmək istəyən obaların, ellərin qabağı alındı.

Gediş-gəliş artdıqca soydaşlarımızın qəlbində inamsızlığı ümid, qorxunu cəsarət əvəz etdi. Heydər Əliyevin müdrik siyasəti sayəsində əsrlərdən bəri mehriban qonşuluq şəraitində yaşamış xalqlarımız arasında dostluğun yeni mərhələsi başlandı. Müntəzəm görüşlər, əlaqə-ünsiyyət, səmimi münasibətlər insanların psixologiyasına, əhval-ruhiyyəsinə güclü təsir etdiyindən soydaşlarımızın öz dədə-baba yurdlarından perikməsinə son qoyuldu. Qaçqın karvanı əvəzinə, bizə minnətdarlıq məktubları axıb gəlməyə başladı. Gürcüstan dövlət başçısının Borçalı quberniyası üzrə nümayəndəsinin müavini Hacımurad Xəlilovun bu qayğı və köməkdən ürəklənən həmyerliləri adından, şəmkirlilərə ünvanladığı məktubu həyəcansız oxumaq olmur:

"Əziz Aslan müəllim, hər dəfə Siz, Azərbaycan Prezidenti möhtərəm Heydər Əliyevin tapşırığı ilə bu yerlərə gəlib-gedəndə inanın ki, qəlbimiz dağa dönür. İstər hökumət nümayəndələrinin, istərsə də şair və yazıçıların, ayrı-ayrı peşə sahiblərinin səfərləri daim bizə qol-qanad verir. Bu ağır günlərdə bir də yəqin elədik ki, Azərbaycan bizim ümid yerimiz, cənab Heydər Əliyev isə arxamız, dayağımızdır…"

1996-cı ilin mart ayında Azərbaycan Prezidenti Heydər Əliyevin Gürcüstan respublikasına ilk rəsmi səfəri çox mətləblərə işıq saldı. Gürcüstan-Azərbaycan dostluğunun qədim tarixinə yeni səhifələr yazıldı, yeni fəsillər əlavə olundu. Uzaqgörən ulu öndərimizin müdrikliyindən, tükənməz milli təəssübkeşliyindən, soydaşlarımıza, onların ata-baba yurdlarına olan dərin məhəbbətindən xəbər verən bir epizod yada düşür. Cənab Heydər Əliyevin Gürcüstana səfəri ilə əlaqədar keçirilən təntənəli toplantı zamanı çıxış edən Eduard Şevardnadze xalqlarımızın tarixi dostluğundan danışarkən necə oldusa "Azərbaycan diasporu" sözünü işlətdi. Cənab Heydər Əliyev o dəqiqə söhbətə müdaxilə elədi. "Diaspor – yox dedi – Azərbaycanlılar sonradan gəlmə deyillər. Tarixən bu yerlərdə yaşayırlar. Buralar onların əzəli, əbədi məskənləridir ". Şevardnadze gülümsündü və cənab Heydər Əliyevin sözünü təsdiq elədi.

Bu tarixi görüşdən sonra Prezident Heydər Əliyevin tapşırığı ilə Gürcüstanda yaşayan soydaşlarımıza şəmkirlilərin xeyriyyəçilik ənənələri yeni vüsət aldı. Qardabanidə köhnə, uçulub dağılmaqda olan məscid binası bərpa olundu, Marneuli rayonundakı Kosalı kənd orta məktəbinə xeyli miqdarda yanacaq və tədris ləvazimatı verildi. Həmin rayonun mərkəzində Heydər Əliyevin tapşırığı ilə məscid tikildi. Bolnisi rayonunun Arkivan kənd orta məktəbi təmir edildi. Qardabani və Dmanisi rayonlarında ehtiyac içində yaşayan onlarca ailəyə vaxtaşırı ərzaq və tikinti materialı göndərildi. Tbilisidə azərbaycanlı balalarının oxuduqları 73 saylı orta məktəb əsaslı təmir olundu, onun bağlanmaq təhlükəsi aradan qaldırıldı. Qısa müddət ərzində burada şagirdlərin sayı 60-dan 300 nəfərə qalxdı. Həmin günlərdə Tbilisidə azərbaycanlı balalarının oxuduqları daha bir məktəbin də maddi-texniki bazası möhkəmləndirildi.

Söhbətlərdən birində dövlətimizin başçısı soydaşlarımızın mətbu orqanı olan "Gürcüstan" qəzetinin ayağa qaldırılmasının, ona lazımi qayğı göstərilməsinin vacibliyini bildirmişdi. Prezidentin tövsiyəsini, tapşırığını dərhal reallaşdırdıq. Qəzetin 75 illik yubileyi ərəfəsində yaradıcı kollektivə bir neçə ton kağız, kompüter dəsti, faks, surətçıxaran aparat, iki ədəd printer və digər avadanlığı hədiyyə etdik. Qəzet əməkdaşlarının bir neçə aylıq əməkhaqqının ödənilməsini yoluna qoyduq. Gördük ki, qəzetin kollektivi nəqliyyat sarıdan əziyyət çəkir. Rəhmətlik atamdan qalmış "QAZ-24″ markalı "Volqa" maşınını redaksiyaya bağışladıq.

Biz təkcə soydaşlarımıza yox, ulu öndərin tövsiyəsi ilə gürcü dostlarımıza da yardımlar aparırdıq. Xüsusən, Abxaziyada milli münaqişələrdən sonra doğma ev-eşiklərindən, yurd-yuvalarından qaçqın düşüb Tbilisidəki "İveriya" mehmanxanasında məskunlaşan gürcülərə, eləcə də ölkənin müxtəlif bölgələrində sığınacaq tapan qaçqınlara da əl tutur, müəyyən yardımlar edirdik. Heç yadımdan çıxmaz: "İveriya" mehmanxanasındakı qaçqınlara sovqatlar paylanan zaman Gürcüstanın xalq yazıçısı Quram Pançikidze həyəcanla deyirdi: "Mənim xalqım gözütox, zadəgan, knyaz nəslindəndir. Onlar acından və şaxtadan ölsələr də, öz qürurlarını saxlayaraq heç kimə əl açmayıblar. Bu gün şəmkirlilərin sovqatını qardaş payı kimi qəbul edirik. Bilirik ki, bu yardımlar gürcü ziyalılarının sevimlisi Heydər Əliyevin tapşırığı ilə gətirilib".

Bir dəfə də din xadimlərinin dilindən eşitdiyim söhbətləri heç unuda bilmirəm. Soyuq qış günlərindən biri idi. Təbii qaz balonları və mer-meyvə aparmışdıq. Ümumgürcüstan katolikos-patriarxı II İlya Azərbaycan xalqının xeyirxahlığından minnətdarlıqla söz açdı. Dövlətimizin başçısının müdrikliyini xüsusi vurğuladı: "Cənab Heydər Əliyevin qədrini bilin – dedi – O, bütün Qafqazın ağsaqqalıdır. Həmişə insanlar arasında səmimiyyət, mehribanlıq yaratmağa çalışır. Çətinə düşənlərə, darda olanlara əl tutur, qayğı göstərir. Qoy Tanrı onu hifz eləsin". Sonra da məndən dönə-dönə xahiş elədi ki, Gürcüstanın bütün din xadimlərinin səmimi salamlarını və dərin təşəkkürünü cənab Heydər Əliyevə yetirim.

XIX əsrin sonlarında və XX yüzilliyin əvvəllərində Tiflis şəhəri Zaqafqaziyanın mədəni mərkəzlərindən biri sayılırdı. Azərbaycanın da çoxlu ziyalısı burada yaşamış, yazıb-yaratmışdı. Tbilisi şəhəri həm də Azərbaycan Xalq Cümhuriyyəti süqut edəndə azadlıq fədailərinin sığınacaq məkanlarından birinə çevrilmişdi. Ulu öndər tapşırıq verdi ki, bu qədim şəhərdə dünyasını dəyişən ziyalıların taleyini araşdırım. İlk öncə Mirzə Fətəli Axundovun geniş və yaraşıqlı evi müəyyən təmir-bərpa işləri aparılaraq azərbaycanlıların mədəniyyət mərkəzinə çevrildi. Sonra Nəriman Nərimanovun doğma ocağı erməni əsilli nankorlardan təmizləndi. Mirzə Cəlilin mənzilində, "Molla Nəsrəddin" jurnalının redaksiyasında, "Qeyrət" mətbəəsində təmir-bərpa işləri aparılaraq xatirə muzeyləri yaradıldı. Gürcüstan-Azərbaycan mədəni əlaqələr cəmiyyətinin nəzdində İbrahim İsfahanlı adına teatrın fəaliyyəti bərpa olundu. Az qala unudulmaqda olan bu səhnə fədaisinin 100 illik yubileyi təntənəli şəkildə qeyd edildi. Cümə məscidinin qənşərində böyük sənətkarın yaşadığı binaya xatirə lövhəsi vuruldu.

Ən əsası isə Tbilisidəki səfalı Nəbatat bağında iki yüz kvadratmetrdən çox ərazi abadlaşdırıldı. Azərbaycanlı şəxsiyyətlərin əbədiyyətə qovuşduğu bu müqəddəs yer əsl ziyarətgaha çevrildi. Böyük mütəfəkkir Mirzə Fətəli Axundovun büstü bərpa edildi. Unudulmaz şairimiz Mirzə Şəfi Vazehin qəbirüstü abidəsi ucaldıldı. Görkəmli ziyalı Həsən bəy Ağayevin məzarı əsaslı surətdə abadlaşdırıldı.

Qədim müsəlman qəbiristanlığında Tiflis ədəbi mühitindən çıxmış, müstəqil Azərbaycan dövlətçiliyi uğrunda mübarizə aparmış insanların, tanınmış elm və mədəniyyət nümayəndələrinin, ictimai-siyasi xadimlərin adları yazılmış fəxri guşə yaradıldı. Zərli boya ilə "Azərbaycan övladları" sözləri yazılmış mərmər lövhədə öz dövrünün adlı-sanlı ziyalıları, böyük şəxsiyyət kimi tanınan soydaşlarımızın: Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundov, Fətəli xan Xoyski, Həsən bəy Ağayev, Əliqulu Qəmküsar, Hüseyn Əfəndi Qayıbov, Eynalı bəy Sultanov, Behbudağa Şahtaxtinski, Nazlı xanım Məmmədquluzadə, Müzəffər Nərimanov və onlarca başqalarının adları həkk olundu. Bütün bunlar bilavasitə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və tövsiyəsi ilə həyata keçirilirdi.

Dövrün gərgin axtarışları ilə bağlı çox önəmli bir epizod da yada düşür. 1996-cı ilin soyuq qış günlərindən biri idi. Həmişə olduğu kimi, soydaşlarımızla görüş üçün Tbilisiyə getmişdik. İşimizi görüb evə qayıtmağa hazırlaşırdıq. Axşam saat doqquz olardı. Məlumat verdilər ki, ağbirçək bir qadın mənimlə təklikdə görüşmək, nəsə bir söz demək istəyir. Görüşdük, söhbətdən məlum oldu ki, qocaman müəllimə xalqımız üçün çox böyük əhəmiyyətə malik bir sirrin üstünü açmaq istəyir. Müəllimə illər boyu heç kimə bildirmədiyi bir həqiqəti – Fətəli Xan Xoyskinin dəfn edildiyi yeri mənə açıqladı: "O zaman – dedi – Fətəli Xan Xoyskini allahsız adam kimi Şeyx Sənan dağının ətəyindəki qəbiristanlıqda, mənim qardaşımın yanında basdırdılar".

Sonra qadın həmin yeri göstərdi. "Buradakı ermənilər xəbər tutsalar, Xoyskinin qəbrini dağıdarlar, bu məsələni cənab Heydər Əliyevə çatdırmağınızı xahiş edirəm".

Həmin gün axşam Şəmkirə qayıtdım və ulu öndər Heydər Əliyevlə əlaqə saxlayıb Gürcüstanla bağlı ümumi məlumat verdim. Sonda ölkə Prezidentinə ağbirçək müəllimənin dediklərini də çatdırdım. Heydər Əliyev dərhal soruşdu: "Bu məsələdən daha kimin xəbəri var?" Cavab verdim ki, məndən başqa sürücüm və daha iki nəfər bilir.

Ani pauzadan sonra Heydər Əliyev soruşdu: "Yorulmamısan ?" – dedim: – "Xeyr".

Tapşırdı ki: "Elə indi geri qayıdıb, orada keşik çəkin. Səhər isə Tbilisi Cümə məscidinin axundunu da götürüb müsəlman adət-ənənəsi ilə, deputatlarımızın və digər ziyalılarımızın iştirakı ilə Xoyskinin qəbrinin M. F. Axundovun büstünün yanına köçürülməsini təmin edin. F. X. Xoyskiyə xüsusi məhəbbətim olduğu üçün qəbirüstü abidənin açılışında mən özüm iştirak edəcəyəm".

Ulu öndərin dediyi kimi də elədik.

1996-cı il mart ayının 9-da cənab Heydər Əliyev Fətəli Xan Xoyskinin büstünün açılışında şəxsən iştirak etdi.

Bu cür genişmiqyaslı əlaqəli-əhatəli problemlərin həlli ilə yanaşı, dövlətimizin başçısı hər bir ziyalının, hər bir soydaşımızın qeydinə qalır, onların taleyi ilə maraqlanırdı.

Yəqin oxucuların yadındadır, 1996-cı il mart ayının 17-də Bakıdan Borçalı mahalına gedən avtobus Tovuz rayonu ərazisində qəzaya uğramışdı. İyirmi altı nəfər bir anda həyatdan köçdü. Aralarında yenicə dil açan körpələr də var idi, nişanlı qızlar da, yeniyetmə oğlanlar da. Elə həmin gecə ulu öndər Şəmkirə zəng çaldı. Mənə tapşırdı ki, mərhumların ata-baba yurdlarına çatdırılmasını və onların el adətincə son mənzilə yola salınmasını və onların hüzr məclislərinin keçirilməsini təşkil edim. O qəmli-hüznlü günlərdə qədirbilən insanların, el ağsaqqallarının göz yaşları içərisində Heydər Əliyevə necə xeyir-dua elədiklərini ömür boyu unuda bilmərəm.

Cənab Heydər Əliyevin tapşırığı ilə 2001-ci ilin avqust ayında Marneuli şəhərinə getdik. Azərbaycanın uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, şair-pedaqoq Abdulla Şaiqin 120 illik yubileyi ilə əlaqədar onun dədə-baba ocağında ev muzeyinin və barelyefinin açılışında iştirak etdik. Muzeyin yerləşdiyi küçəyə Abdulla Şaiqin adı verildi. Şairin oğlu, ədəbiyyatşünas alim Kamal Talıbzadə çıxış edib ulu öndər Heydər Əliyevə dərin minnətdarlığını bildirdi.

Müdrik Heydər Əliyev iki qonşu xalq arasında mehribanlığın, səmimi dostluğun, əlaqə-ünsiyyətin günü-gündən inkişafı üçün mümkün olan hər bir tədbirdən istifadə edirdi. Həyatın hər sahəsində, istər mənəvi münasibətlər, istərsə də ədəbi-mədəni əlaqələr getdikcə genişlənirdi. Məhz dövlətimizin başçısının yeritdiyi müdrik siyasət sayəsində görülən işlərdən biri də bu oldu ki, Eduard Şevardnadzenin "Mənim seçimim" kitabı gürcücədən Azərbaycan dilinə, "Azərbaycan-Gürcüstan-dostluğumuzun təntənəsi" adlı məqalələr toplusu isə azərbaycancadan gürcü dilinə çevrilərək nəşr olunub. Görkəmli türk publisisti İrfan Ülkünün ulu öndər Heydər Əliyevin həyatından bəhs edən "Qızıl ulduzdan hilala doğru" əsəri türk dilindən, "Əsrin adamı", habelə Mir Cəlalın "Bir gəncin manifesti" əsəri, Aşıq Ələsgərin "Qoşmaları"nı Azərbaycan dilindən gürcü dilinə tərcümə edilib, gürcücə-azərbaycanca lüğətlər nəşr olunub, Nodar Dumbadzenin "Mən günəşi görürəm" adlı əsəri,

Quram Pançikidzenin "Saf daş" romanı, Çansuq Çarkvianinin "Mən və mən" şerlər kitabı, Moris Posxişvilinin "İki məhəbbət" poeması, İmir Məmmədlinin "Peyğəmbərin kəlamları" toplusu və başqa əsərlər Azərbaycan oxucusuna çatdırılıb.

Bütün bu sosial-mənəvi məsələlərlə yanaşı, ulu öndər Heydər Əliyev bir sıra beynəlxalq əhəmiyyətli problemlərin, möhtəşəm proqramların həyata keçirilməsində də qonşu Gürcüstan respublikasının maraqlarına xüsusi önəm verirdi. Uzun illər cənab Heydər Əliyevlə çiyin-çiyinə çalışmış Eduard Şevardnadze öz "Memuarlar"ında ulu öndərimizin bu tarixi xidmətlərini minnətdarlıqla xatırlayaraq yazır ki: "…Əliyev enerjidaşıyıcılarının əsas marşrutunun Gürcüstandan keçməsi üçün əlindən gələni əsirgəmədi.

Bakı-Supsa ilkin neft borusu tez bir zamanda 6-7 ay ərzində inşa olundu… Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin tikilişi beynəlxalq maraqlara, eləcə də ABŞ və Türkiyənin aktiv dəstək obyektinə çevrilməsinə səbəb oldu və Gürcüstana çox əhəmiyyətli bir beynəlxalq funksiya qazandırdı".

Bütün bunlar xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən Gürcüstan-Azərbaycan dostluğu yolunda yaratdığı ulu körpünün qızıl kərpicləri sayıla bilər. Bu dostluq bədxah qonşularımız istəsələr də, istəməsələr də getdikcə möhkəmlənir, yenilməz qüvvəyə çevrilir.

2007-ci ilin may ayında Tbilisidə Heydər Əliyevin büstünün təntənəli açılış mərasimində Gürcüstan Prezidenti Mixail Saakaşvili tarixin reallıqlarına söykənən çıxışında demişdir: "Regionumuzun geosiyasəti məhz Heydər Əliyevin qərarından sonra dəyişdi… Heydər Əliyev müasir Azərbaycan dövlətinin banisi, müasir Azərbaycan millətinin atasıdır. Sıx birləşmiş Azərbaycan, dost Azərbaycan, uğurlu Azərbaycan isə Gürcüstanın özünün daxilində inteqrasiya və müvəffəqiyyətin, ümumi gələcəyimizin rəhnidir".

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş nəcib ənənə davam edir. Eduard Şevardnadzenin dediyi kimi: "Bu gün Heydər Əliyevin işini və ölkələrimizin qardaşlıq ənənələrini onun oğlu – böyük ziyalı, gənc dövlət xadimi İlham Əliyev davam etdirir. O, atasının irsinə dəyərli şəkildə başçılıq edir və Azərbaycanda, eləcə də Gürcüstanda böyük inam və nüfuz qazanıb".

Dövlətimizin başçısı İlham Əliyev və Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörənliklə yeritdiyi siyasi kursa sadiq qalaraq Gürcüstan-Azərbaycan dostluğunun daha da möhkəmləndirilməsi üçün böyük işlər görürlər. Azərbaycanlılar yaşayan bölgələrdə məktəblər təmir edilir, yollar abadlaşdırılır, körpülər salınır, su və qaz problemləri aradan qaldırılır. Hər il Azərbaycan dilində yüzlərlə dərslik, kompüter və digər avadanlıq göndərilir. Soydaşlarımızın adı ilə bağlı olan guşələrin abadlığı və əbədiliyi üçün lazımi qayğı və kömək göstərilir.

Bir sözlə, Gürcüstan-Azərbaycan dostluğunun tarixinə hər il yeni-yeni səhifələr yazılır. Bu isə ilk öncə, dahi Heydər Əliyev kursunun bəhrəsidir. Bütün bunları yada saldıqca böyük siyasətçi Eduard Şevardnadzenin müdrik sözləri yada düşür: "Qafqazın müstəqilliyi və azadlığı işində Heydər Əliyev fenomeninin indinin özündə nə qədər böyük rol oynadığını xalq hələ sonra biləcək".

"**Azərbaycan**".-2009.-12 dekabr.-N 276.-S.11.

## MƏNƏVİYYAT ZİRVƏSİ

**Zahid CƏFƏROV,**
Bakı Dövlət Universitetinin dosenti,
hüquq elmləri namizədi

**Düşüncə sisteminin milli xarakteri, etnik müxtəlifliyi yetkin insan şüurunun formalaşdığı dövrdən mövcud olmuş, bəşəriyyətin uzun tarixi inkişafı ərzində məhz bu tipoloji xarakterik xüsusiyyət əsasında inkişaf etmiş, habelə ayrı-ayrı millətlərin özünəməxsusluğunu şərtləndirən dəyərlərin formalaşmasında mühüm rol oynamışdır. Daha çox milli-mənəvi dəyər məfhumunda ehtiva olunan bu özünəməxsusluq tarixən milli həyatın maddi və mənəvi zənginliyinə əsaslanmaqla, xalqları bir-birindən fərqləndirmişdir. Əsrlər boyu milli cəmiyyətin sosial nizamını qoruyub saxlayan, fərdlərarası münasibətləri nizamlayan, cəmiyyətin üzləşdiyi ən müxtəlif problemlərin həllində açar rolunu oynayan milli-mənəvi dəyərlər həm də sərt sınaqlardan çıxaraq cilalanmış, möhkəmlənmişdir.**

Bəşəriyyətin tarixi təkamül prosesi göstərir ki, hər hansı xalqın milli-mənəvi irsini, mental-əxlaqi dəyərlərini qoruyub saxlamaq, genetik yaddaşını, tarixi kimliyini, özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya onun taleyində müstəsna rol oynamış fenomenal şəxsiyyətlərin fəaliyyəti ilə bağlı olmuşdur. Nəcib əməllər sahibi olan belə insanlar həmişə saf və ali məqsədlər uğrunda mübarizənin önündə dayanmış, əlverişli siyasi şansdan böyük məharətlə, ustalıqda bəhrələnmiş, xalqın düşüncə sistemini, mental xüsusiyyətlərini istənilən ictimai-iqtisadi formasiyada hifz edərək möhkəm mənəvi təməl üzərində gələcəyə doğru inamla addımlamışlar.

Ötən əsrdə xalqımızın dünya siyasi arenasına bəxş etdiyi nadir şəxsiyyət olan Heydər Əliyev də Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında azərbaycanlıların istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini – əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq əsrin sonlarına doğru – müstəqil Azərbaycan dövləti kimi əzəmətli reallığa qovuşdurmuşdur. Sağlığında ümummilli liderlik ucalığına qovuşmuş bu müdrik şəxsiyyət böyük fədakarlıqlar hesabına qurub-yaratdığı dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanın müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir. Bəli, əgər ulu öndər Heydər Əliyevin rəhbərliyi altında ötən əsrin 70-80-ci illərində Azərbaycanın sosial-iqtisadi, mədəni yüksəlişi üçün həyata keçirilən tədbirlər, milli şüurun oyanışı istiqamətində istər açıq, istərsə də gizli şəraitdə görülən böyük işlər olmasaydı, biz bu gün Azərbaycanın müstəqil xəttə malik suveren dövlət kimi mövcudluğundan danışa bilməzdik.

Hər bir millətin tarixi inkişafı, qarşıya qoyduğu hədəflərə yetişmək əzmi, ilk növbədə, onun malik olduğunu milli-mənəvi potensialdan, dəyərlər sistemindən qaynaqlanır. Zəngin milli-əxlaqi keyfiyyətlərini, milli "Mən"ini, heysiyyətini qorumağı bacaran xalq gələcək yaşam fəlsəfəsini düzgün müəyyənləşdirir, dünya miqyasında layiqli yerini, mövqeyini təmin edir. Bu həqiqəti hər zaman ciddiliklə nəzərə alan böyük strateq Heydər Əliyev də Azərbaycanı qoruyub inkişaf etdirmək, hansısa mərhələdə milli müstəqilliyə qovuşdurmaq üçün ilk növbədə xalqımızın zəngin milli-mənəvi irsini, tarixini, mədəniyyətini, dilini, bir sözlə, özünəməxsusluğunu şərtləndirən dəyərlərini hifz etməyə çalışmışdır.

1969-cu ilin 14 iyulunda Azərbaycanda siyasi hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev ilk gündən hər cür ideoloji-siyasi baryerlərə sinə gərərək xalqının milli özünüdərki üçün bütün zəruri tədbirləri həyata keçirməyə başlamış, ictimai şüurdakı qorxunu, ehtiyatlılığı aradan qaldırmağı, cəmiyyəti bütün sahələr üzrə mənəvi yüksəlişlərə ruhlandırmağı bacarmışdır. Ulu öndər xalqda milli heysiyyəti gücləndirmək, onu şanlı keçmişinə, soy-kökünə qaytarmaq, habelə zəngin mədəni irsini yaşatmaq üçün bir sıra tədbirlər həyata keçirmişdir.

İmperiyanın sərt ideoloji buxovları şəraitində sıxılan, kosmopolit ideyaları "həzm edə bilməyən" cəmiyyəti milli ruhda kökləməyə çalışan ümummilli lider ilk növbədə kütləvi informasiya vasitələrinin imkanlarından istifadə etməyə çalışmış, Azərbaycan KP MK-nın 1970-ci il 20 mart tarixli plenumunda onların fəaliyyətindən narazılığını vurğulamışdır: "Bəzən mətbuat, radio və televiziya işçiləri iqtisadiyyatın, mədəniyyətin və məişətin inkişafına, xalqın milli-mənəvi həyatına aid mühüm məsələləri lazımi səviyyədə işıqlandırmağı bacarmırlar".

Azərbaycana rəhbərlik edən şəxsin bu qətiyyətli, açıq çıxışından sonra mətbuatda, televiziya və radioda xalqın milli-mənəvi dəyərlərini, adət-ənənələrini, folklorunu, ədəbiyyatını, tarixini təbliğ edən materiallar çoxalmış, milli ədəbi irsi tərənnüm edən "Klassik irsimizdən", "Bulaq" kimi verilişlər ortaya çıxmış, ana dilinin təbliği istiqamətində bir sıra real addımlar atılmışdır. Böyük strateq Heydər Əliyev milli ruhun yüksəlişinə xidmət edən bu və digər addımlarla sanki Azərbaycanın müstəqilliyi üçün etibarlı zəminin formalaşdırılmasına,

milli özünüdərk hissinin bu real siyasi məqsəd naminə səfərbər olunmasına çalışmışdır. O dövrlə bağlı konkret tarixi sənədlər göstərir ki, ulu öndər respublikaya birinci rəhbərliyi dövründə böyük siyasi ustalıqla xalqda milli özünüdərk hissini gücləndirə, habelə milli kimliyi, düşüncə sistemi barədə dolğun təsəvvür formalaşdıra bilmişdir.

Ümumiyyətlə, böyük strateq Heydər Əliyevin respublikaya rəhbərliyinin bütün fəlsəfi ruhu yalnız xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanışı məramına hesablanmışdı. İdarəçilikdə digər bütün addımlar, o cümlədən iqtisadi inkişafın sürətli strategiyasının həyata keçirilməsi milli şüurun yüksəlməsinə təkan verməli, milli dirçəlişin etibarlı təməlinə çevrilməli idi. Bu məqsədə yetişmək üçün Heydər Əliyev azərbaycançılıq məfkurəsinin rejimin ideoloji repressiya maşını ilə boğulmasına nəinki imkan verməmiş, eyni zamanda milli məfkurə və düşüncə sahibi olan ziyalıları qorumuş, nəticədə respublikada dissident yazarlar olmamışdır.

Həmin dövrdə milli düşüncəli vətənpərvər ziyalılarımızın imperiyanın xüsusi xidmət orqanlarının təqiblərindən qurtulması, insanlarda milli dövlətçilik hissini gücləndirən sanballı əsərlər yazıb-yaratması Heydər Əliyevin böyük dəstəyi sayəsində mümkün olmuşdur. Vaxtı ilə azərbaycançılıq məfkurəsini əsərlərində təbliğ etdiklərinə görə şovinizmdə, millətçilikdə günahlandırılan, təqiblərə məruz qalan Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Anar, Ziya Bünyadov kimi şəxsiyyətləri ən çətin məqamlarda qoruyan Heydər Əliyev qanı, canı, ruhu ilə milli kökə bağlı şəxsiyyət olduğunu bir daha sübuta yetirmişdir.

60-cı illərin sonuna doğru mərhum akademik Ziya Bünyadov və onun ətrafına yığışmış bir neçə gənc vətənpərvər alim böyük siyasi cəsarətlə Azərbaycanın Rusiyaya könüllü birləşməsi fikrini təkzib edən mülahizələr irəli sürmüş, bu hadisənin yubileyinin qeyd edilməsinin əleyhinə çıxmışdılar. Buna görə onları böyük fəlakət gözləsə də, Heydər Əliyev bu vətənpərvər tarixçilərin təhlükəsizlik orqanlarının sərt təqibləri, repressiyaları ilə üzləşməsinə imkan verməmişdir. Ümummilli lider sonralar bu hadisəni xatırlayarkən demişdir: "…Universitetdə bir neçə adam Azərbaycan tarixini araşdırarkən Azərbaycanın Rusiyaya birləşməsi haqqında mübahisə aparmışdı ki, Azərbaycan Rusiyanın tərkibinə könüllü girmişdi, yaxud məcburi girmişdi. Bunu o vaxtlar şişirtdilər. Bu böyük bir iğtişaş yaratdı. Başladılar araşdırmağa ki, bunlar millətçidirlər, yaxud başqa fikirləri var, dövlət mövqeyindən kənarda yaşayırlar. Mən bu məsələnin şişirdilməsinə imkan vermədim".

Həmin dövrdə bədnam qonşularımız görkəmli tarixçi alim Ziya Bünyadovun "Atabəylər dövləti" kitabını Dövlət mükafatına layiq görən Heydər Əliyevin özünü belə millətçilikdə, şovinizmdə ittiham edirdilər. Lakin ulu öndər belə ittihamlara qətiyyən fikir vermir, milli yüksəlişə xidmət edən addımlarını davam etdirirdi. Xatırlatmaq yerinə düşər ki, 70-ci illərdə məşhur "Gülüstan" poemasını yazdığına görə DTK-nın təqiblərinə məruz qalmış şair Bəxtiyar Vahabzadə də məhz ulu öndər Heydər Əliyevin qətiyyəti, prinsipiallığı sayəsində həbs olunmaqdan qurtulmuşdu. Repressiyaya məruz qalaraq 1937-ci ildə Sibirə sürgün olunmuş görkəmli ziyalı və dramaturq Hüseyn Cavidin nəşini 1981-ci ildə Uzaq Sibirdən Azərbaycana gətirmək üçün apardığı mübarizə də ulu öndərin milli irsə ehtiramla yanaşan, heç bir siyasi riskdən çəkinməyən şəxsiyyət olduğunu bir daha təsdiqləyir.

Ulu öndərin respublikaya birinci rəhbərliyi illərində Azərbaycan ziyalıları – tarixçilər, yazıçı və publisistlər şanlı keçmişimizin mümkün qədər obyektiv tədqiqi və qələmə alınması istiqamətində ilk addımlarını atmağa başlamışlar. Respublika yazıçılarının 1976-cı ilin may ayında keçirilmiş qurultayında iştirak etmiş Heydər Əliyev tədbirdə geniş nitq söyləyərək milli ədəbi düşüncənin, onun inkişaf istiqamətlərinin, problemlərinin həlli yollarının dərin bilicisi olduğunu göstərmişdir. Böyük strateq elm xadimlərinə xalqın qədim tarixi, soy-kökü ilə bağlı olan yazılı abidələrin dərindən öyrənilməsini tövsiyə etmiş, azərbaycanlıların dünya ədəbiyyatı ilə yaxından tanış olmaları üçün tərcümə işinin qaydaya salınması vacibliyini vurğulamışdır.

Azərbaycan xalqının milli düşüncəsi, adət-ənənələri, ümumən azərbaycançılıq ideologiyasının mühüm komponentləri daha çox qədim yazılı abidə olan "Kitabi-Dədə Qorqud"da əksini tapdığından, sovet ideologiyası ötən əsrin 20-50-ci illərində dastanın öyrənilməsini qadağan etmiş, uzun illər bu abidənin unutdurulmasına çalışırdı. Ulu öndər bu qadağanı da tamamilə aradan götürərək dastanın araşdırılması və tədqiqinə normal şərait yaratmışdır. "Azərbaycan əbədiyyatı çoxəsrlik tarixi "Kitabi-Dədə Qorqud kimi ədəbi abidələrlə, Nizaminin nəhəng yaradıcılığı ilə, Xaqaninin və Nəsiminin, Füzulinin və Vaqifin, söz sənəti bahadırlarının dahiyanə əsərləri ilə, aşıq poeziyasının həmişə canlı nümunələri ilə zəngindir" – deyən Heydər Əliyevin göstərişi əsasında "Kitabi-Dədə Qorqud" eposu ilə bağlı tarixi və ədəbi araşdırmaların sayı çoxalmış, hətta mövzuda sanballı bədii film çəkilmişdir.

Xalqın milli düşüncə sisteminin bədii-poetik modeli olan Azərbaycan folklorunun inkişafı istiqamətində həyata keçirdiyi addımlar da ulu öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərə həssas münasibətindən irəli gəlmiş, ictimai şüurun oyanışına xidmət etmişdir. Heydər Əliyev xalqın istiqlal düşüncələrinin, azadlıq ideyalarının lirik-emosional ricəti olan aşıq poeziyasının və musiqisinin dirçəldilməsinə də xüsusi diqqət yetirmişdir. 1972-ci ildə Azərbaycan aşıq sənətinin görkəmli nümayəndələrindən olan Aşıq Ələsgərin 150 illik

yubileyinin həm aşığın doğulduğu Göyçə mahalında, həm Bakıda, həm də Moskvada ən yüksək səviyyədə keçirilməsi bunu bir daha təsdiqləyir. Belə bir möhtəşəm yubileyin keçirilməsində məqsəd el sənətkarını xalqa qaytarmaqla yanaşı, həm də tarixən Azərbaycanın real sərhədlərinin necə olduğunu, ulu babalarımızın Ermənistan adlanan ərazidə əzəldən yaşadığı fikrini sovet cəmiyyətinə çatdırmaq idi. Eyni zamanda ulu öndər Heydər Əliyevin təşəbbüsü əsasında Azərbaycan KP MK Bürosunun 1972-ci il 7 dekabr tarixli iclasında Aşıq Şəmkirin anadan olmasının 80 illik yubileyinin keçirilməsi, adının ədəbiləşdirilməsi haqqında qərar qəbul edilmişdir.

Ulu öndər Heydər Əliyev sağlığında milli təmayüllü kommunist kimi müxtəlif təqiblərə, təzyiqlərə məruz qalan, ölümündən sonra isə unutdurulmağa çalışılan görkəmli ictimai-siyasi xadim Nəriman Nərimanovun 100 illik yubileyini qeyd etmək, onun heykəlini ucaltmaq üçün Sovet imperiyasının rəhbərliyi ilə danışıqlara iki il vaxt sərf etmişdir. Nəticədə Azərbaycan KP MK bürosunun 1972-ci il 24 may tarixli iclasında Nəriman Nərimanovun Bakı şəhərində heykəlinin ucaldılması barədə qərar qəbul etmişdir. Ulu öndər, eyni zamanda görkəmli ədibin 1977-ci ildə Rusiyanın Ulyansk şəhərində əzəmətli abidəsinin ucaldılmasını təmin etmişdir. (Yeri gəlmişkən, bir müddət əvvəl Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin dəvəti əsasında Ulyansk şəhərində işgüzar səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev həmin abidənin önünə əklil qoymuş, Nəriman Nərimanovun xatirəsini ehtiramla yad etmişdir) Bu addımları ilə Heydər Əliyev, əslində, Nəriman Nərimanova görkəmli dövlət xadimi kimi bəraət verir, onun təbliğinə, tanıdılmasına çalışırdı.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı əvəzsiz xidmətlərindən biri də məhz ana dilinə həssas münasibət olmuşdur. Xalqın milli-mənəvi dəyərlərinin yaşadılması və inkişaf etdirilməsində ana dilinin müstəsna rol oynadığını başa düşən müdrik rəhbərin bu məsələyə münasibəti daim həssas olmuşdur. Azərbaycan Dövlət Universitetinin 1969-cu il noyabrın 1-də keçirilmiş 50 illik yubileyində totalitar sovet rejiminin tətbiq etdiyi bütün baryerləri aşaraq Azərbaycan dilində çıxış edən Heydər Əliyev cəmiyyətə milliləşmə zəruriliyi mesajını vermiş, milli dilə, dinə, dəyərlərə bağlı olmağı, tarixi irsi yaşatmağı ictimai fikrə müdrikliklə təlqin etmişdir. 70-ci illərin ortalarında Azərbaycan dilinin tədqiq və öyrənilməsi istiqamətində dövlət səviyyəsində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. 1974-cü ildə Azərbaycan dilinin tədqiqinə görə bir qrup dilçi alimin, o cümlədən 3 cildlik “Müasir Azərbaycan dili” dərsliyinin çapı da ulu öndərin ana dilinə böyük ehtiramla yanaşdığını göstərir. Həmin illərdə Azərbaycan Elmlər Akademiyasının Dilçilik İnstitutunun yaradılması da ana dilinin ictimai-siyasi nüfuzunun möhkəmləndirilməsini, dilinin tarixinə, dialektologiyaya dair bir çox tədqiqatların meydana çıxmasını şərtləndirmişdir.

Ümumiyyətlə, 1969-1982-ci illərdə humanitar və ictimai elm sahələrində, xüsusən də hüquq elmində böyük irəliləyişlər əldə edilmiş, Azərbaycan dilinin, tarixinin tədqiqi sahəsində uğurlu nəticələr qazanılmışdır. Sovet rejiminin sərt qanunlarına baxmayaraq, respublikamızda böyük iqtisadi, elmi və ədəbi-mədəni potensialın yaradılması bu uzaqgörən siyasətin nəticəsi olmuş, xalqın azadlıq idealları, XX əsrin əvvəllərindəki azərbaycançılıq, dövlətçilik dəyərləri ictimai şüurda geniş meydan tapmışdır. Milli-mənəvi şüura qayıdış çağdaş milli varlığın təsdiqi kimi reallaşmış, zəruri tarixi-mənəvi prosesə çevrilmişdir. Bir məqamı da vurğulayaq ki, ötən əsrin 80-ci illərinin sonunda Azərbaycan xalqının milli “Mən”ini qorumaq üçün ayağa qalxmasının, ölkədə milli-azadlıq hərəkatının genişlənməsinin də əsası məhz 70-ci illərdə qoyulmuş möhkəm ideoloji-siyasi təmələ əsaslanmışdır.

Tarixi zərurətin diktəsi, xalqın təkidli istəyi ilə 1993-cü ilin iyununda – taleyüklü bir zamanda müstəqil Azərbaycanın rəhbərliyinə qayıdan, məsuliyyətli bir missiyanı çiyinlərinə götürməkdən çəkinməyən ulu öndər Heydər Əliyev qısa zamanda dövlətçiliyin xilasına, ictimai-siyasi sabitliyin, qanunçuluğun, hüquq qaydalarının bərpasına, iqtisadi tənəzzülün qarşısının alınmasına nail olmaqla yanaşı, həm də milli-mənəvi, əxlaqi dəyərlərin deqredasiyası təhlükəsinin qarşısını almışdır. Bakıya qayıtdıqdan sonra ilk görüş yerlərindən biri kimi məhz Azərbaycan Elmlər Akademiyasını seçən ümummilli lider Azərbaycanın humanitar və ictimai elmlərinin yeni dövrün tələblərinə uyğunlaşdırılması, azərbaycançılıq ideologiyasının, milli-mənəvi dəyərlərin qorunması ilə bağlı alimlər qarşısında yeni tələblər müəyyənləşdirmişdir.

Sovet Azərbaycanına rəhbərliyi dövründə formalaşdırdığı mütərəqqi ənənələri müstəqillik illərində inamla davam etdirən ulu öndər Azərbaycanın görkəmli şair və yazıçılarının, elm, incəsənət xadimlərinin yubileylərinin keçirilməsinə, ev-muzeylərinin yaradılmasına xüsusi qayğı ilə yanaşmışdır. Heydər Əliyevin bu sahədəki mədəni quruculuq siyasəti nəticəsində mənəvi dəyərlərimiz qorunmuş, milli adət-ənənələrimiz yaşadılmış, klassiklərimizin yüz illərin sınağından günümüzə gəlib çatmış mənəvi irsinin gələcək nəsillərə itkisiz çata bilməsi üçün lazım olan bütün zəruri addımlar atılmışdır. Bu baxımdan Heydər Əliyevin 1 noyabr 1994-cü ildə Ankara yaxınlığındakı Bilkənd Universitetində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinə həsr olunmuş yubileyində iştirakını xüsusi xatırlatmaq lazımdır.

Hüseyn Cavidin ev-muzeyinin yaradılması da ulu öndərin milli-mənəvi irsə qayğısının bariz təcəssümüdür. 1981-ci ildə böyük səylər hesabına görkəmli dramaturqun nəşini uzaq Sibir çöllərindən doğulduğu Naxçıvana gətirən ulu öndər burada onun üçün əzəmətli məqbərənin də tikilməsinə nail oldu. Böyük şair və dramaturqun məqbərəsinin, ev-muzeyinin yaradılması ilə bağlı keçirilən müşavirədə Heydər Əliyev demişdir: "Vaxt var idi Hüseyn Cavidi həbs etdilər və onun bütün əsərlərini qadağan etdilər. Hüseyn Cavid həbs olunandan, hətta dünyasını dəyişəndən sonra onu millətçi, pantürkist, antisovet adam adlandırırdılar. Amma Hüseyn Cavidin əsərləri yaşadı. Zaman keçdi və biz Hüseyn Cavidin xatirəsinin əbədiləşdirilməsi, onun irsinin təbliğ olunması üçün bu gün buraya toplaşmışıq. Necə ki, repressiya olunmuş adamlar, onların ailələri üçün repressiya illəri nə qədər uzun olsa da keçib getdi, o ailələr, o insanlar tamamilə bəraət qazandılar, hətta tarixi şəxsiyyət kimi tanınırlar və təbliğ olunurlar, hörmət və ehtiramla yad edilirlər".

Ulu öndər müstəqillik illərində də xalqın milli-mənəvi dəyərlərini və düşüncə sistemini yaşadan, günümüzə gətirib çıxaran folklor nümunələrinə – qəhrəmanlıq eposlarına daim xüsusi maraqla, diqqətlə yanaşmışdır. Heydər Əliyevin 1997-ci il aprelin 20-də imzaladığı "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi haqqında fərmanı, yubileyi keçirmək məqsədilə komissiyanı yaratması və ona sədrlik etməsi, bunu dövlət işinin tərkib hissəsinə çevirməsi milli-mənəvi irsin qorunması, yaşadılması, öyrənilməsi və gələcək nəsillərə çatdırılması sahəsində olduqca əhəmiyyətli bir hadisə olmuşdur.

"Kitabi-Dədə Qorqud" abidəsinin YUNESKO kimi möhtəşəm beynəlxalq mədəniyyət təşkilatında qorunan mənəvi miraslar siyahısına salınması və bununla da onun dünya mədəniyyəti inciləri arasında özünəməxsus yer tutması Heydər Əliyevin iradəsi sayəsində mümkün olmuşdur. 1300 yaşlı bu qocaman abidənin yubileyinin Azərbaycanda keçirilməsi, bu tədbirin böyük ədəbi-mədəni hadisə olması, bütün türk xalqlarının siyasi liderlərinin, hökumət başçılarının, YUNESKO təşkilatının baş direktorunun, onlarca xarici ölkədən gəlmiş elm adamlarının, ictimai-siyasi xadimlərin, yazıçı və şairlərin marağında olması dünya mədəniyyəti tarixində əlamətdar bir hadisə idi.

Ulu öndər milli-mədəni irslə yanaşı, mənəviyyatın, milli əxlaq və düşüncə modellərinin qorunub saxlanılması üçün də səylərini əsirgəməmişdir. Bu baxımdan Heydər Əliyevin 13 avqust 2001-ci il tarixli bəyanatı da milli-mənəvi dəyərlərin qorunması məqsədinə xidmət etməklə, gənc nəslin tərbiyəsinə mənfi təsir göstərən neqativ amillərin aradan qaldırılmasına səbəb olmuşdur.

Çağdaş tariximizə möhürünü vurmuş Heydər Əliyev dühası müstəqillik illərində azərbaycançılığın ayrı-ayrı komponentlərini vahid sistem halına gətirərək milli ideologiyaya çevirməklə, cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur. Milli irs və düşüncə sistemindən qaynaqlanan bu ideya dərin məzmun yükü ilə cəmiyyətin təkamül prosesində, tərəqqisində və monolitliyində aparıcı amilə çevrilməkdən savayı, həm də ümummilli liderə xalqı öz ətrafında birləşdirmək, milli ideallar ətrafında səfərbər etmək imkanı yaratmışdır.

Böyük strateq Heydər Əliyev çıxışlarında xüsusi vurğulamışdır ki, yeni dünya nizamının, qarşısıalınmaz qloballaşma prosesinin nəticəsi kimi meydana çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlər hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunması məsələsini çağdaş zamanın ən aktual məsələlərindən birinə çevirmişdir. Heydər Əliyev dühasının Vətəninə, xalqına, milli irs və ənənələrə bağlılığı bu təhdidlər önündə əzəmətli sipərə çevrilmiş, bütövlükdə xalqın milli genefondunu qorumuşdur. Ulu öndər Heydər Əliyev öz düşüncələrində böyük ustalıqla milli və liberal dəyərlərin uğurlu vəhdətini yarada bilmişdir. Ulu öndər öz davranışları ilə xalqımıza kənar mədəniyyətlərlə təmas zamanı yabançı həyat tərzlərindən nələri əxz etməyi, nələri götürüb, nələri kənara qoymağı böyük uzaqgörənliklə göstərmişdir. Azərbaycanın qapıları ən ali, bəşəri və universal dəyərlərin üzünə məhz ulu öndərin əlləri ilə açılsa da, bu qapıdan ictimai həyatımıza daxil olan yeniliklər minilliklər boyu tariximizlə yol gələn, bizi dünya xalqları içərisində tanıdan milli dəyərləri üstələyə bilməmişdir. Ulu öndər Heydər Əliyev bu mənada, həm də xalqın inanclarını, milli dəyərlərini bütün siyasi proseslərin fövqündə saxlayaraq qorumağı bacarmış liderdir.

Hər bir məsələdə ulu öndərin ideyalarına tapınan Azərbaycan Prezidenti İlham Əliyevin milli mədəniyyətin və mənəvi dəyərlərin qorunması, inkişaf etdirilərək gənc nəsillərə çatdırılması ilə bağlı siyasəti də bu baxımdan çağdaş dövrün bir sıra reallıqları ilə şərtlənir. Cənab İlham Əliyevin milli ideologiya və milli-mənəvi dəyərlər probleminə dair baxışları onun siyasi portretinin əsas cizgilərini təcəssüm etdirir. Cənab İlham Əliyevin bu sahədəki xidmətləri yalnız xalqın milli dəyərlərinə – mədəniyyətinə, ədəbiyyatına, folkloruna, incəsənətinə yüksək qayğı, diqqət nümunəsi kimi dəyərləndirilməlidir. Görülən bu işlər, sadəcə, qayğı və diqqət nümunəsi olmaqla məhdudlaşa bilməz. Bütün bunlar qədimlərdən bizə gəlib çatan müqəddəs irsin gələcək nəsillərə əmanət edilməsi, azərbaycançılıq və türkçülük məfkurəsinin, əxlaqının, baxışlar sisteminin bütün dünyada təbliği, qəbul olunması üçün həyata keçirilən məqsədyönlü strategiyanın tərkib hissəsidir.

Dövlət başçısı İlham Əliyev daim vurğulayır ki, bu gün milli ideologiyamızın əsas tərkib hissələrindən biri də məhz azərbaycançılıqdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrikliklə irəli sürdüyü azərbaycançılıq ideologiyası həyat tərzində, əxlaqda, mənəviyyatda, dildə, dində, ədəbiyyatda, bir sözlə, mənəvi mədəniyyətin bütün sahələrində istiqamətləndirici məfkurə olmalıdır. Əsrlərdən miras qalmış mütərəqqi mənəvi dəyərlər Azərbaycan xalqının milli mövcudluğunun və dövlətçiliyinin qarantına çevrilməlidir.

Prezident İlham Əliyev səlahiyyətlərinin icrasına başladığı ilk gündən xalqın mənəviyyatının qorunub saxlanılmasına, inkişaf etdirilməsinə xidmət edən strateji siyasi kursa üstünlük vermişdir. Prezidentlik fəaliyyətinin ilk aylarında “Azərbaycan Milli Ensiklopediyası haqqında” və “Azərbaycan dilində latın qrafikalı kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” sərəncamlar imzalayan İlham Əliyev milli-mənəvi irsə sadiqliyini bir daha nümayiş etdirmişdir. Respublikada kitab nəşrinə Prezident səviyyəsində göstərilən bu qayğı həm də gənc nəslin mütərəqqi ruhda tərbiyəsi, Azərbaycanın və dünyanın korifey yazıçı və şairlərinin əsərləri ilə yaxından tanış olması, mənəvi kamilləşməsi məqsədindən irəli gəlir.

Cənab İlham Əliyev son 6 ildə mədəniyyət və incəsənət işçilərinin – rəssamların, heykəltəraşların, eləcə də yazıçı və şairlərin problemlərini xüsusi diqqət mərkəzində saxlaması, onların iş şəraitinin yaxşılaşdırılması, yaradıcılıq emalatxanalarının inşasına göstəriş verməsi da xüsusi vurğulanmalıdır. Bu təbəqədən olan insanların dövlət səviyyəsində təntənəli yubiley mərasimlərinin keçirilməsi, onların sosial durumunun yaxşılaşdırılması istiqamətində konkret addımların atılması, o cümlədən mədəniyyət və incəsənət xadimlərinə fərdi Prezident təqaüdlərinin təsis edilməsi bu siyasətin mühüm tərkib hissəsidir.

Azərbaycan Prezidenti İlham Əliyevin elmin, təhsilin, mədəniyyətin inkişafını sürətləndirən onlarla fərman və sərəncamlar, dövlət proqramları imzalaması onun yetişməkdə olan gənc nəslin mənəvi bütövlüyü, kamilliyi və saflığı, habelə qlobal miqyaslı yad təsirlərə qarşı mənəvi müqavimətin təkmilləşdirilməsi istiqamətində həyata keçirdiyi siyasətin mühüm məqamlarıdır. Bütün bunlar, eyni zamanda mənəvi yüksəlişə, intibaha xidmət edən mühüm addımlar kimi cəmiyyətin pozitiv ruhda inkişafına təkan vermişdir.

Xüsusi vurğulamaq lazımdır ki, ölkədə klassik irs və milli-mənəvi dəyərlərin qorunması, təbliği istiqamətində həyata keçirilən tədbirlərdə ictimai əsaslarla fəaliyyət göstərən Heydər Əliyev Fondunun da müstəsna rolu var. Fondun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən çoxşaxəli layihələri birləşdirən ümumi ortaq xətt də məhz milli genefondun, milli-mənəvi irsin qorunması məqsədidir.

**Bütün bunlar göstərir ki, Heydər Əliyev ideyalarını hər sahədə uca tutan, onları praktik şəkildə gerçəkləşdirən Azərbaycan Prezidenti İlham Əliyevin yeritdiyi məqsədyönlü siyasətin qayəsində xalqın milli-mənəvi, mədəni və elmi-intellektual potensialının gücləndirilməsi məqsədi ön planda dayanır. Dövlət başçısının müasir azərbaycanlı təfəkküründə Vətən və xalq təəssübkeşliyi, Şərqin pozitiv ənənəçilik meyilləri, türk mənəvi-əxlaqi dəyərləri, habelə Qərb və Avropanın liberal ideyaları üzvi vəhdət təşkil edir. Azərbaycan Prezidenti mədəni, elmi, etno-kulturoloji, habelə yaradıcılıq sahələrində irəliləyişi, mənəviyyat məsələlərinə dövlət himayəsini iqtisadi-sosial tərəqqi ilə ayrılmaz şəkildə bağlayır. Bu, dünyanın ümumi həyatının rəhnidir və hər bir millətin gələcəyində, dövlətin qabaqcıl ölkələrlə eyni hüquqi səviyyədə yaşayıb inkişaf etməsində həlledici amildir.**

“**Azərbaycan**“.-2009.-12 dekabr.-N 276.-S.13.

# LİDERLİK UCALIĞI

**Abel MƏHƏRRƏMOV,**
Bakı Dövlət Universitetinin rektoru,
akademik, Milli Məclisin deputatı

**Azərbaycan xalqı əsrlər boyu azadlığa qovuşmaq, müstəqil dövlət qurmaq uğrunda daim mübarizə aparsa da, yalnız ötən əsrin sonlarında bu arzusuna çatmışdır. Xalqın qəlbində əsrlər boyu silinməz iz qoymuş, onu mübarizə ruhunda kökləmiş milli dövlətçilik idealının gerçəkliyə qovuşması isə, ilk növbədə, milli lider amili ilə şərtlənmişdir. XX əsr tariximizin fenomen şəxsiyyəti olan Heydər Əliyev xalqı tarixən can atdığı müstəqillik idealına qovuşdurmuş, mütərəqqi ənənələr əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürmüşdür.**

Azərbaycanı canı qədər sevən, ürəyi daim xalqının səadəti, xoşbəxtliyi uğrunda döyünən, ölkəsini azad, müstəqil və inkişafda görmək istəyən Heydər Əliyevin mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq unudulmaz tarixdir.

XX əsrin ortalarında – 1969-cu ilin 14 iyulunda ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin ən qabarıq siyasi təzahürü imperiyanın sərt ideoloji qəlibləri şəraitində azərbaycançılıq məfkurəsinin, milli ruhun hədsiz yüksəlişinin, xalqın tarixi kökünə qayıdışı kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsi, real siyasi amilə çevrilməsi ilə bağlı olmuşdur. Ulu öndər respublikamızın üzləşdiyi problemləri ilk gündən düzgün müəyyənləşdirməklə onların həlli üçün lazımi iradə, qətiyyət və prinsipiallıq göstərmiş, o dövrün çatışmazlıqlarını açıq deməkdən çəkinməmişdir. Bu baxımdan Heydər Əliyevin Azərbaycan KP MK-nın 5 avqust 1969-cu il tarixli plenumundakı dərin məzmunlu, eyni zamanda tənqidi ruhlu çıxışı sovet Azərbaycanını problemlər məngənəsindən dinamik inkişaf yoluna çıxaran pozitiv prosesin başlanğıcı kimi ehtiramla xatırlanır. Həmin plenumda Heydər Əliyev mövcud problemləri konkret şəkildə önə çəkmiş, dövlət idarəçiliyi sistemində formalaşmış regionçuluq, bürokratiya və korrupsiya kimi neqativ tendensiyaların yolverilməz olduğunu demişdir. Ulu öndər eyni zamanda çoxsaylı problemlərin həllində bir sıra rəhbər şəxslərin məsuliyyət daşıdığını da aşkar şəkildə bəyan etmişdir.

Ümummilli lider Heydər Əliyev keçmiş ittifaqın iqtisadiyyatı üçün əlverişli xammal bazasına çevrilmiş Azərbaycanın yeni inkişaf strategiyasını böyük uzaqgörənliklə işləyib həyata keçirmişdir. Bunun nəticəsi kimi bir sıra əsas göstəricilər üzrə geridə qalmış Azərbaycan qısa müddətdə inkişafın yeni mərhələsinə qədəm qoyaraq tez bir zamanda keçmiş ittifaqın qabaqcıl respublikalarından birinə çevrilmiş, milli gəlir səviyyəsini əhəmiyyətli dərəcədə artıra bilmişdir. Bugünkü müstəqil Azərbaycan dövlətinin iqtisadi-siyasi əsaslarının, milli kadr potensialının formalaşması, ölkədə strateji əhəmiyyətli sənaye və istehsal müəssisələrinin açılması da məhz ötən əsrin 70-80-ci illərinə təsadüf edir. Heydər Əliyevin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri məhz Azərbaycanda inşa olunmuş, bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsasları formalaşdırılmışdır.

Ulu öndər Heydər Əliyev kosmopolit ideyaların zehinlərə zorla yerləşdirildiyi bir dövrdə milli məfkurənin qorunub saxlanılması, habelə azərbaycançılığın ən mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi sahəsində də mühüm tədbirlər həyata keçirmişdir. Heydər Əliyev üçün ana dili azərbaycançılığın başlanğıc məqamı, təməl pirinsipi olmuşdur. Müdrik rəhbər yaxşı bilirdi ki, xalqa milli-mənəvi dəyərlərini aşılamaq üçün ona ilk növbədə öz dilini qaytarmaq və sevdirmək lazımdır. Rus dilinin dövlət dili olmasına rəğmən, ulu öndər həmin dövrdə bütün rəsmi nitqlərini Azərbaycan dilində edir, bunu bütün rəhbər vəzifəlilərdən də tələb edirdi. Hələ 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiya layihəsi qəbul edilərkən, ulu öndərin Azərbaycan dilinin bu ali sənəddə ana dili kimi təsbitlənməsi və qorunub saxlanılması sahəsində nümayiş etdirdiyi rəşadəti də xüsusi xatırlanmalıdır. Bununla bağlı Kreml “emissarları”nın dəfələrlə Bakıya gələrək Heydər Əliyevi fikrindən daşındırmağa səy göstərdiyini, lakin məqsədlərinə nail olmadıqlarını da mühüm fakt kimi vurğulamaq lazımdır. Eyni zamanda ümummilli lider Heydər Əliyevin ötən əsrin 70-ci illərində nəşr olunmuş 3 cildlik “Müasir Azərbaycan dili” dərsliyinə dövlət mükafatı verməsi də xalqın milli şüurunun formalaşmasına mühüm töhfə olmuşdur.

Faktlar göstərir ki, əgər sovet hakimiyyətinin ilk illərindən etibarən Azərbaycanda rus dilində təhsil alanların sayı dinamik surətdə artırdısa, bu zərərli tendensiyaya məhz ötən əsrin 70-ci illərinin əvvəllərində son qoyulmuşdur. Bu dinamika Azərbaycan dilində təhsil alanların say artımı hesabına kəskin şəkildə azalmış, ana dilində elmi nəşrlərin sayı çoxalmış, elmi tədqiqatların və araşdırmaların məhz bu dildə aparılması dəstəklənmişdir. “Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər

Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı biri-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir" deyən Heydər Əliyev çox sonralar Azərbaycan dilinin inkişafı üçün gördüyü tədbirləri belə izah edirdi.

Ulu öndər hakimiyyətə gəlişindən dərhal sonra Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyinin keçirilməsinə qərar vermiş, 1969-cu il noyabrın 1-də həmin təntənəli tədbirdə iştirak etmişdir. Heydər Əliyev yubiley mərasimində totalitar sovet rejiminin bütün baryerlərini aşaraq Azərbaycan dilində çıxış etmiş, onun dərin məzmunlu nitqi sonrakı mərhələdə milli təhsil manifestinə çevrilmişdir. Ötən əsrin 70-80-ci illərində Azərbaycanın inkişafını və intibahını məhz bu ali təhsil ocağında axtaran ümummilli lider Bakı Dövlət Universitetində layiqli kadrların yetişdirilməsi üçün əlindən gələni əsirgəməmişdir. Böyük strateq universitetə hər zaman müqəddəs məbəd kimi yanaşmış, bu müqəddəsliyə xələl gətirə biləcək mənfi təzahürlərin aradan qaldırılması üçün yeri gələndə hətta sərt addımlardan belə çəkinməmişdir. 1970-ci illərin əvvəllərindən etibarən Heydər Əliyev hüquqşünas kadrların hazırlanması işinin keyfiyyətini birbaşa nəzarətə götürmüşdür. Geniş imtiyazlara, səlahiyyətlərə malik vəzifəli şəxslərin övladlarının hüquq fakültəsinə daxil olmasını yasaqlayan sərəncam imzalamış ümummilli lider, əslində, bununla təhsil sistemində özünü qabarıq göstərən neqativ tendensiyalara son qoymuşdur.

Ulu öndər BDU-nun 60 illik yubileyinin də keçirilməsinin əsas təşəbbüskarı olmuş, 1980-ci ildə keçirilmiş həmin mərasimdə iştirak edərək təbrik nitqi söyləmişdir. Sovetlər birliyi dövründə təhsil ocağının beynəlxalq əlaqələrinin genişlənməsi məhz Heydər Əliyevin respublikaya rəhbərliyə gəlişindən sonra mümkün olmuşdur. Universitet bir sıra dövlətlərin analoji ali təhsil müəssisələri ilə əməkdaşlığa başlamış, beynəlxalq əlaqələri keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Bu ali təhsil ocağının 40-dan çox müəllimi məhz Heydər Əliyevin himayəsi və qayğısı sayəsində müxtəlif xarici ölkələrə pedaqoji işə göndərilmişdir. Ümumilikdə universitetin 300-dən artıq müəllimi və tələbəsi Asiya və Afrika ölkələrində tərcüməçi işləmiş, 30 müəllim və elmi işçi Avropa, ABŞ və Yaponiyada uzunmüddətli elmi ezamiyyətdə olmuşdur.

Həmin dövrdə ulu öndərin diqqət və qayğısı ilə universitetin maddi-texniki bazası, iş şəraiti əsaslı şəkildə yaxşılaşdırılmış, kabinet və laboratoriyaların sayı 115-i keçmiş, 15 ixtisaslaşmış laboratoriya yaradılmış, təhsil ocağının ikinci korpusu tikilərək istifadəyə verilmişdir. Eyni zamanda professor-müəllim heyətinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmış, onların yeni mənzillərlə təminatına xüsusi diqqət yetirilmişdir.

Bakı Dövlət Universitetində pərvazlanan, təhsil sahəsində böyük uğurlar əldə edən tələbələrin keçmiş SSRİ-nin bir sıra qabaqcıl universitetlərinə oxumağa göndərilməsi ənənəsi də ulu öndərin respublikada milli kadr potensialının formalaşdırılması istiqamətində atdığı mühüm addımlardan biri kimi xatırlanır. Heydər Əliyevin Azərbaycanın gələcəyini düşünərək uzaqgörənliklə əsasını qoyduğu bu ənənə milli elmi potensialımızın yüksəlməsinə, ixtisaslı kadrlara olan ehtiyacın ödənilməsinə hesablanmışdır. Ümummilli liderin dövlətçilik fəlsəfəsinə görə, elmə, təhsilə göstərilən qayğı xalqın xoşbəxt gələcəyinə qoyulan təminatlı sərmayədir. Ötən əsrin 60-cı illərində SSRİ-nin müxtəlif yerlərində oxumaq istəyənlər üçün yalnız 50 yer ayrıldığı halda, 80-ci illərin əvvəllərində bu göstərici 1000 nəfəri ötmüşdü. 70-ci illərdə Heydər Əliyevin qayğı və diqqəti ilə 10 minədək azərbaycanlı gənc respublikamızdan kənarda təhsil almağa göndərilmişdi. Keçmiş ittifaqın müxtəlif yerlərində, xüsusən Moskva, Sankt-Peterburq şəhərlərində ali təhsil alaraq Bakıya dönmüş mütəxəssislər sonradan cəmiyyətin aparıcı təbəqəsinə çevrildilər və bugünün özündə də dövlət idarəçiliyində layiqli yerlərini tuturlar.

Ümummilli lider 1982-ci ildən sonra da milli maraqlarla bağlı məsələlərdə daim əzmkarlıq göstərmiş, yüksək siyasi iradə ortaya qoymuş, mərkəzin yeritdiyi siyasətin ayrı-ayrı çalarları ilə bağlı tənqidi fikirlərini, mülahizələrini söyləmişdir. Heydər Əliyev SSRİ rəhbərliyində yüksək vəzifə tutan zamanlar da doğma vətənini, xalqını unutmamış, hər zaman Azərbaycanın mənafeyini müdafiə etmişdir. Ulu öndərin parlaq şəxsiyyəti, tükənməz yaradıcılıq qabiliyyəti, müxtəlif səmərəli ideyaları həyata keçirmək cəhdi dağılmaqda olan imperiya çərçivəsinə sığmırdı. Buna görə də böyük öndərin fəaliyyəti siyasi və mənəvi tənəzzülə uğrayan imperiya rəhbərlərinin qısqanclığı ilə qarşılanırdı. Ulu öndər ötən əsrin 80-ci illərinin sonlarına doğru ermənilərin Azərbaycana qarşı yeni ərazi iddiasını reallaşdırmaq yolunda böyük maneə idi.

Tarixən böyük siyasi liderlər ən böhranlı, çətin anlarda məsuliyyəti çiyinlərinə götürərək bütöv bir xalqın, millətin xilaskarına çevrilmişlər. Ulu öndərin diqqəti çəkən fitri idarəçilik keyfiyyətləri sırasında onun ən ekstremal, çətin və millətin taleyi baxımından məsuliyyətli dönəmlərdə ictimai mənafeləri özündə tamamilə ehtiva edən qətiyyətli, eyni zamanda, yaranmış şərait üçün ən optimal qərarlar qəbul etmək məharəti, yəqin, heç zaman xatirələrdən silinməyəcək. Öz liderinin müdrik, uzaq hədəflərə hesablanmış, qətiyyətli və çevik addımlar atmaq əzmindən yetərincə xəbərdar olan Azərbaycan xalqı ən mürəkkəb vəziyyətlərdə belə arxayınlıq hissini

itirmirdi. Təkcə bu səbəbdən ki, baş qaldıran təhlükələr, həyatın bu və digər mürəkkəblikləri, cılız siyasi kombinasiyalar Heydər Əliyev şəxsiyyətinin əzəməti qarşısında son dərəcə bəsit görünürdü. Tale 1993-cü ildə Azərbaycanı növbəti dəfə çətin sınaqlarla üz-üzə qoyanda xalqın yeganə xilaskar kimi Heydər Əliyevi hakimiyyətdə görmək istəyi də məhz bu gerçəklikdən qaynaqlanırdı. Əgər bu həlledici mərhələdə tarixə Milli Qurtuluş günü kimi daxil olmuş əlamətdar hadisə baş verməsəydi, xalqın təkidli tələbi ilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, indi biz müstəqil, qüdrətli, hər zaman tərəqqi edən, yeniləşən və demokratikləşən Azərbaycan dövlətindən danışa bilməzdik.

1993-cü ilin iyununda Bakıya qayıdan Heydər Əliyev yorulmaq bilmədən, qətiyyətlə və böyük bacarıqla Azərbaycanın başı üstünü almış vətəndaş müharibəsi alovunu söndürmüş, ölkədə baş alıb gedən qanunsuz silahlı dəstələr zərərsizləşdirilmiş, ictimai-siyasi sabitliyin tam bərpasına, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsinə, cəbhə bölgəsində atəşkəs rejiminə nail olmuş, habelə demokratik inkişaf kursu ilə uzlaşan sosial-iqtisadi siyasət strategiyasını ortaya qoymuşdur.

Xüsusi vurğulamaq lazımdır ki, elmin, təhsilin inkişafı, milli-mənəvi dəyərlərə həssas münasibət müstəqil Azərbaycan Respublikasına rəhbərliyi dövründə də ulu öndər Heydər Əliyevin fəaliyyətinin əsas istiqamətini təşkil etmişdir. Ümummilli lider 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra 70-80-ci illərdə respublikada formalaşdırdığı zəngin elmi-intellektual potensiala istinad edərək özünün təkmil təhsil konsepsiyasını irəli sürmüş, milli tərəqqi baxımından strateji əhəmiyyət daşıyan bu sahənin problemlərini xüsusilə diqqət mərkəzində saxlamışdır. Ümummilli liderin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra ictimai həyatın ən müxtəlif sahələrində, o cümlədən elmi-intellektual sferada hökm sürən tənəzzülün qarşısı alınmış, təhsilin öz məcrasına düşməsi, inkişafı üçün əlverişli iqtisadi şərait, hüquqi və mənəvi-əxlaqi mühit formalaşmışdır. Bu böyük şəxsiyyətin müstəqil Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri eyni zamanda ciddi təmələ əsaslanmaqla həyata keçirdiyi fəal maarifçilik siyasətində parlaq surətdə təcəssümünü tapır. Ulu öndər Heydər Əliyev Azərbaycan təhsilinin milli əsaslar üzərində çağdaş dünya təhsil sisteminə inteqrasiyasını başlıca vəzifə kimi aktuallaşdırmış, elm-təhsil sahəsində mütərəqqi islahatları ardıcıllıqla həyata keçirmişdir. Ümummilli liderin təhsil konsepsiyasının əsas qayəsini müstəqilliyin daha da möhkəmləndirilməsi, demokratik və hüquqi cəmiyyət quruculuğu prosesinin yüksək dinamizmlə həyata keçirilməsi, dövlətin iqtisadi potensialının gücləndirilməsi kimi ümdə prinsiplər təşkil etmişdir.

Ulu öndər Heydər Əliyevin “Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında” 30 mart 1998-ci ildə imzaladığı sərəncam, habelə 15 iyun 1999-cu il tarixdə təsdiqlədiyi “Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı” da bu sahədə islahatların məhz tədricən, mərhələlərlə həyata keçirilməsini, Azərbaycanda təhsil standartlarının yeni dövrün şərtlərinə uyğunlaşdırılması prosesini təmin etmişdir. “Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası haqqında” sərəncamda müstəqil Azərbaycanın təhsil sistemində beynəlxalq standartlara uyğun islahatların həyata keçirilməsi, təhsilin inkişafı və onun maddi-texniki bazasının möhkəmləndirilməsi, Avropa təhsil məkanına inteqrasiyanın təmin edilməsi kimi mühüm vəzifələr önə çəkilmişdir. “Azərbaycan Respublikasında Təhsil İslahat Proqramı”nın əsas mahiyyətini isə təhsil sistemində islahatların təkamül yolu, mərhələlərlə aparılması, tarixən formalaşmış zəngin, mütərəqqi ənənələrin, təcrübənin qorunub saxlanılması, dünya təhsil sisteminin Azərbaycanın milli xüsusiyyətləri ilə çuğlaşan prinsiplərinin tətbiqi məsələləri təşkil edir. İslahat proqramının həyata keçirilməsi təhsilin məzmununu yeniləşdirmiş, yeni proqramlar və dərsliklər hazırlanmış, ayrı-ayrı təhsil sahələri, fənlər üzrə standartların işlənməsi istiqamətində ciddi iş aparılmışdır.

Ümummilli lider Azərbaycanın ağır sosial-iqtisadi-siyasi-mənəvi böhrandan çıxarılması, uğurlu iqtisadi islahatların həyata keçirilməsi zamanı da ən böyük dəstəyi məhz ölkə ziyalılarından almışdır. Elm, mədəniyyət, ədəbiyyat, incəsənət xadimlərinin sosial müdafiəsinin təşkili istiqamətində atılan addımlar, dövlət büdcəsində baş verən artımlar hesabına bu sahələrə yönələn vəsaitlərin çoxalması yeni bir intibah mərhələsinin əsasını qoymuşdur. Vətəndən uzaq düşən, xaricə üz tutan istedadlı alimlərimiz tədricən geri qayıtmağa başladılar. Akademiyanın fəaliyyətində yeni istiqamətlər müəyyənləşdi və 1997-ci ilin 31 yanvarında ulu öndərin akademiyanın bir qrup aparıcı alimi ilə keçirdiyi tarixi görüşdən sonra faktiki olaraq ötən əsrdə Elmlər Akademiyasının inkişafının yeni mərhələsi başlandı.

Heydər Əliyev təkcə milli elmin inkişafı üçün lazımi maddi-texniki təminat, alimlərin sosial problemlərinin həlli qayğısına qalmır, eyni zamanda cəmiyyət üçün xüsusi aktuallığa malik elmi problemləri də özünəməxsus fəhmlə müəyyən edərək elm adamlarının diqqətinə çatdırır, onları elmi tədqiqata cəlb etməyə ruhlandırırdı. Akademiya alimləri ilə keçirdiyi həmin görüş zamanı Heydər Əliyev Azərbaycan elmi qarşısında dayanan əsaslı problemlərə toxunmuş, onların aktuallığını əsaslandıraraq alimlərimizə Azərbaycan dövləti, xalqı üçün daha gərəkli strateji məsələlərlə məşğul olmağı tövsiyə etmiş, Azərbaycanda elmin inkişaf strategiyasının əsas müddəalarını irəli sürmüşdür. Geniş kütlə, xalq, millət üçün humanitar elmlərin xüsusi əhəmiyyətə malik

olduğunu vurğulayan ulu öndər ədəbiyyat, mədəniyyət tarixinin yazılması zəruriliyi barədə söhbət açmış, çoxəsrlik Azərbaycan tarixinin dərindən öyrənilməsinin və yüksək elmi prinsiplər əsasında şərhinin dövlət üçün mühüm əhəmiyyətini qabartmışdır: "Əlbəttə, müstəqil Azərbaycanda fizika, riyaziyyat, biologiya, kimya və başqa fənnlərin hamısı inkişaf etməlidir. Ancaq bunların hərəsinin özünəməxsus çərçivəsi vardır. Amma tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq lazımdır. O cümlədən mədəniyyətimizin, ədəbiyyatımızın, elmimizin tarixi lazımdır".

Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdışından sonra elmin, ali təhsilin əsas mərkəzlərindən olan Bakı Dövlət Universitetini də unutmamış, ilk gündən bu ali təhsil müəssisəsinin üzləşdiyi problemlərin həllini diqqətdə saxlamışdır. Ümummilli liderin elə həmin ildə universitetə gəlişi bu böyük təhsil müəssisəsinə sanki yeni həyat vermiş, çətinliklərə rəğmən onu yeni dövrün tələbləri səviyyəsində kadr hazırlığına sövq etmişdir. Ulu öndərin dəfələrlə qeyd etdiyi kimi, universitetin başlıca məqsədi gələcəyin vətəndaşını, yüksək səviyyəli mütəxəssisini yetişdirməkdən ibarətdir. "Fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" deyən ulu öndər Heydər Əliyev BDU-ya olan rəğbətini daim büruzə verməklə yanaşı, bu ali təhsil ocağının qarşısında bir sıra məsul vəzifələr müəyyənləşdirmişdir. BDU daim dünya şöhrətli məzununun xüsusi qayğısını hiss etmiş, onun qarşıya qoyduğu ali ideyalar universitetin tələbə və professor-müəllim heyətinin əsas fəaliyyət stimulvericisinə çevrilmişdir. Bakı Dövlət Universitetinin ən zəngin, məzmunlu tarixinin şərəfli səhifələri məhz Heydər Əliyevin böyük diqqət və qayğısı sayəsində yazılmışdır. Görkəmli dövlət xadimi ilə Bakı Dövlət Universitetini bir-birindən ayrı təsəvvür etmək mümkün deyildir. Ən azı bu səbəbdən ki, universitet təhsildə də, elmin inkişafında da, maddi bazanın möhkəmləndirilməsi, yeni ixtisasların açılması sahəsində də ən möhtəşəm nailiyyətlərini məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə qazanmışdır. Ümummilli liderin təşəbbüsü ilə universitetin 80 illik yubileyinin təntənəli şəkildə qeyd olunması da həmin diqqətin əyani təzahürüdür.

Dahi şəxsiyyət yalnız Azərbaycanın davamlı inkişaf strategiyasının möhkəm təməlini qoymaqla kifayətlənməmiş, həm də bu strateji kursu qloballaşma dövrünün diktə etdiyi şərtlər müqabilində davam etdirməyə qadir, yüksək istedadlı, praqmatik və rasional təfəkkürlü, xalqını, dövlətini sevən, yüksək idarəçilik keyfiyyətlərinə malik siyasi davamçı və lider yetişdirmişdir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 6 ildəki fəaliyyəti onun ulu öndərin əsasını qoyduğu proqressiv elm və təhsil ənənələrini uğurla davam etdirdiyini və yeni dövrün tələblərinə uyğun zənginləşdirdiyini göstərir. Ötən müddətdə Azərbaycanda dinamik iqtisadi inkişafın sürətləndirilməsinə, cəmiyyət həyatının bütün sahələrində mütərəqqi islahatların aparılmasına etibarlı təminat yaradan cənab İlham Əliyev elm və təhsilin problemlərini də diqqət mərkəzində saxlamış, ulu öndərin bu sahədə müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin etmişdir. Milli təhsilin inkişafı məsələsi öz məzmununu dəyişərək artıq həm də Azərbaycanın gələcək inkişaf modelinin əsasını formalaşdıran başlıca amil kimi gündəmə gətirilmiş, insan kapitalının formalaşmasına xidmət edən ümumtəhsil hərəkatı başlanmışdır.

Azərbaycanın hərtərəfli inkişafını elm və təhsildə, güclü insan kapitalının formalaşdırılmasında görən dövlət başçısı İlham Əliyev BDU-nun cəmiyyətdəki yeri və rolunu, ictimai əhəmiyyətini daim yüksək dəyərləndirmiş, onun davamlı yüksəlişi, tərəqqisi naminə bütün zəruri tədbirləri həyata keçirmişdir. Azərbaycan Prezidentinin universitetə hər zaman milli elm və təhsilin lokomotivi, mütərəqqi ictimai düşüncənin mərkəzi kimi yanaşması onun çağdaş tariximizdəki müstəsna rolu və xidmətləri ilə şərtlənir. Bakı Dövlət Universiteti ötən 90 ildə hər bir xalqın mənəvi böyüklüyünün rəmzi, elm, təhsil və mədəniyyətinin möhtəşəm məbədi, habelə ölkənin iqtisadi, siyasi və mədəni səviyyəsinin barometri olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan BDU XX əsrdə çətin və əzablı, eyni zamanda şərəfli inkişaf yolu keçməklə milli universitet missiyasını şərəflə daşıyan nüfuzlu ali təhsil ocağıdır.

Cənab İlham Əliyevin xüsusi qayğısı ilə universitet son 6 ildə inkişafının daha dinamik mərhələsinə qədəm qoymuş, görkəmini, maddi-texniki bazasını inanılmaz dərəcədə müasirləşdirmiş, Avropa təhsil məkanına inteqrasiya prosesində böyük nailiyyətlərə imza atmışdır. Ötən il universitetin yarımçıq qalmış III korpusunun ən müasir tələblərə cavab verən səviyyədə inşa edilərək 2008-2009-cu dərs ili qarşısında istifadəyə verilməsi də dövlət başçısının elmə, təhsilə qayğı siyasətinin bariz təcəssümü olmuşdur. Azərbaycan Prezidentinin 2008-ci il mayın 20-də imzaladığı "Bakı Dövlət Universitetinin yeni tədris korpusunun tikintisi ilə bağlı bəzi tədbirlər haqqında" sərəncamı ilə BDU-nun yeni tədris korpusunun tikintisinə 4,6 milyon manat vəsaitin ayrılması isə inşaat işlərinin uğurla yekunlaşmasına zəmin yaratmışdır.

Universitetin 90 illik yubileyinin bir müddət əvvəl respublika miqyasında geniş qeyd olunması, bu prosesin ümumən təhsil sistemində son illərin ən əlamətdar hadisələrindən birinə çevrilməsi də məhz dövlət başçısı İlham Əliyevin xidmətləri ilə bağlıdır. Azərbaycan Prezidentinin 24 aprel 2009-cu il tarixli "Bakı Dövlət Universitetinin 90 illik yubileyinin keçirilməsi haqqında " sərəncamı ilə yubiley tədbirlərinə start verilmiş, müxtəlif səviyyələrdə universitetin keçdiyi tarixi yola bir daha nəzər salınmış, onun dövlət və xalq qarşısındakı

xidmətləri yüksək dəyərləndirilmişdir. Azərbaycanın elm, təhsil və mədəniyyətinin möhtəşəm məbədinə, ölkənin iqtisadi, siyasi və mədəni səviyyəsinin barometrinə çevrilmiş BDU-nun yubiley tədbirləri onun yüksək adına layiq şəkildə keçirilmiş, bu proses ölkə hüdudlarından kənarda da böyük diqqət çəkmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin 30 oktyabr 2009-cu il tarixli sərəncamları ilə Bakı Dövlət Universitetinin ümumilikdə 107 nəfər professor-müəlliminin müxtəlif fəxri adlara, mükafatlara, fərdi təqaüdlərə layiq görülməsi böyük amallar sahibi olan bu şəxsiyyətin elmə, təhsilə qayğısı, habelə universitetə ənənələrdən gələn diqqət nümunəsi olmuşdur. Bütün bunlar, şübhəsiz, BDU-nun çoxsaylı professor-müəllim heyətinin fəaliyyətinə verilən yüksək qiymət olmaqla, universitetin çoxsaylı kollektivində böyük ruh yüksəkliyi doğurmuşdur.

Noyabrda keçirilmiş təntənəli yubiley tədbirində universitet kollektivini təbrik edən, onlara uğurlar arzulayan Prezident İlham Əliyev böyük səmimiyyət və ehtiram hissi ilə BDU-ya bundan sonra da qayğı ilə yanaşacağını demişdir: "Bakı Dövlət Universitetinin fəxri doktoru adının verilməsi mənim üçün böyük şərəfdir. Mən müxtəlif universitetlərin fəxri doktoruyam. Ancaq əlbəttə ki, mənim üçün ən doğma olan Bakı Dövlət Universitetinin fəxri doktoru adını almaq xüsusi məmnunluq hissi oyadır. Mənim fəaliyyətimə verilən bu yüksək qiymətə görə sizə bir daha öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Sizi əmin etmək istəyirəm ki, Bakı Dövlət Universitetinin hərtərəfli inkişafı üçün bundan sonra da əlimdən gələni əsirgəməyəcəyəm !"

**Azərbaycan Prezidenti İlham Əliyevin 6 illik fəaliyyətinin təhlilinə nəzərən əminliklə demək olar ki, ulu öndər Heydər Əliyev siyasi kursunun davam etdirilməsi ictimai zərurət olmaqla, respublikanın müstəqilliyinə əbədi təminatdır. Dövlət başçısı hər addımında milli maraq və mənafeləri uca tutur, ölkə vətəndaşlarının arzu və istəyini gerçəkləşdirmək üçün böyük əzmkarlıqla çalışır. BDU-nun müəllim və tələbə kollektivi bu gün Heydər Əliyev ideyalarının layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə birgədir. Ölkənin uğurlu gələcəyinə istiqamətlənmiş yüksəliş kursunun icrasına, cənab İlham Əliyevin Azərbaycan rəhbərliyinə gəlişi ilə həyatımızda başlanmış intibah mərhələsinin daha böyük nailiyyətlərə gətirməsi üçün görülən işlərə, atılan addımlara BDU-nun çoxminlik müəllim-tələbə kollektivi də köməyini əsirgəmir. Ürəkdən inanırıq ki, Azərbaycan xalqını firavan gələcəyə aparan bu siyasətin davamlılığı qarşıdakı illərdə də təmin olunacaq, müstəqil respublikamız cənab İlham Əliyevin rəhbərliyi altında inkişaf tempini sürətləndirərək dünyanın qabaqcıl dövlətləri sırasında layiqli yerini tutacaqdır.**

"**Azərbaycan**".-2009.-12 dekabr.-N 276.-S.8.

# HEYDƏR ƏLİYEV ELM VƏ TƏHSİLİN İNKİŞAFINA BÖYÜK QAYĞI İLƏ YANAŞIRDI

**İsa ALIYEV,**
AMEA İqtisadiyyat İnstitutunun direktoru, iqtisad elmləri doktoru, professor,

**Aqil ƏSƏDOV,**
institutun aparıcı elmi işçisi, iqtisad elmləri namizədi

**Xeyirxah, vətənpərvər, yaradıcı, millətini hər şeydən uca tutmağı bacaran, həyatının hər anı xalqının taleyinə bağlı olan dahi insanlar haqqında heç vaxt keçmiş zamanda danışmırlar, sadəcə – dünyasını dəyişdi – deyirlər. Həm də bu cür adamların bioloji yoxluğu onların mənəvi varlığı ilə əvəzlənir. Yəni belə insanlar bizi tərk etdiyi anda, başqa bir formada mənəvi cəhətdən hər zaman bizimlədir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də xalqın böyük mənəvi dəyərinə, ümid və and yerinə çevrilməklə əbədiyyətə qovuşdu.**

Bu gün biz gündəlik həyat və fəaliyyətimizin hər addımında bu dahi insanı xatırlayır, onun nəcib və uzaqgörən əməllərinin xoş nəticələri ilə rastlaşırıq. Heydər Əliyev bütün müsbət xüsusiyyətləri ilə yanaşı, həm də böyük ürək sahibi idi. Hətta ona qarşı dönük çıxmış, xəyanət etmiş insanları da bağışlamağı bacarırdı. Bu insan üçün vətən, millət, xalq daha önəmli idi, nəinki şəxsi ambisiyalar. O, 1993-cü il iyunun 15-də Ali Sovetin sədri kimi çıxışında da bu barədə belə demişdir: "Mən rica edirəm, kiçik hissiyyatı kənara qoymaq vaxtıdır, xırda dedi-qodunu kənara qoymaq lazımdır, bunların vaxtı deyil. Əgər kimsə, nə vaxtsa mənə qarşı düzgün münasibət bəsləməyibsə, nəsə edibsə, inanın ki, mən onların hamısını çoxdan bağışlamışam ".

Azərbaycan tarixinin Heydər Əliyev dövrü taleyüklü məqamları, dövlətçilik uğrunda gərgin mübarizə və s. ilə öz tutumuna, kütləsinə görə bütöv bir mərhələ, epoxadır. Zaman etibarilə bizlərə çox yaxın olduğu üçün bu gün həmin dövrün tarixi qiymətini, dəyərini bəlkə də düzgün ifadə etmək bir qədər çətindir. Ancaq heç şübhəsiz, dövlətçilik, idarəetmə, regional siyasət, elm, təhsil, mədəniyyət, idman və s. haqqında yazılacaq nüfuzlu kitablar məhz Heydər Əliyev irsindən qaynaqlanacaq, xalqımızın bu dahi oğlunun fəaliyyəti elmi və elmi-pedaqoji cəhətdən daha mükəmməl öyrəniləcəkdir. Təbii ki, bu kitablarda ümummilli lider Heydər Əliyev bir hakimiyyət ustadı kimi, qətiyyətli dövlət başçısı kimi, müdrik siyasətçi, məsuliyyətli vətəndaş kimi, cəsur və tədbirli sərkərdə, Vətənini və millətini hədsiz məhəbbətlə sevən bir insan kimi, çətin anlarda hər zaman millətinin yanında olmağı bacaran şəriksiz və alternativsiz lider kimi hərtərəfli öyrənilməlidir. Bütün bunlar gənc nəsil üçün xüsusilə vacibdir.

Heydər Əliyev həm də ədalətli bir dövlət başçısı idi. Məhz özü ədalətli adam olduğu üçün hadisələrə də bu konteksdən yanaşmağı bacarır, dünya ictimaiyyətini, beynəlxalq qurumları və s. ölkəmizin mübtəla olduğu münaqişənin həllində ədalətli olmağa çağırırdı. O, sərt olmağı bacarırdı, insanları səhvlərinə görə cəzalandırırdı, ancaq heç vaxt ədalətsiz qərar qəbul etmirdi. Onun cəzası vicdan və ədalət kateqoriyalarının həmişə, hər yerdə və hər bir şəraitdə prinsipial qələbəsini təmin etmək kimi nəcib və sosial-mənəvi missiyaya hesablanmışdı. Bütün bunlar Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrlərdə də açıq-aşkar hiss edilirdi. Ulu öndərin öz sözləri ilə desək: "Dövlət inamsızlıq üzərində qurula bilər, ədalətsizlik üzərində yox".

Azərbaycan xalqı, onun ayrı-ayrı nümayəndələri Heydər Əliyevi haqlı olaraq, xilaskar adlandırırlar. Əlbəttə, ona görə haqlı deyirik ki, təkcə elə ötən əsrin 80-90-cı illərində xalqımızın məruz qaldığı xarici irtica və daxili destabillik faktoru necə böyük bəlalardan xilas olduğumuzdan xəbər verir. Bu xilasın başlıca səbəbi isə Heydər Əliyevin daim öz xalqı ilə birlikdə olması idi. 1994-cü ilin "məşhur" oktyabr hadisələri zamanı ulu öndərin "…İndi bizim hamımız üçün çox həlledici məqamdır, həlledici dəqiqədir. Kim Azərbaycana doğrudan ürək yandırırsa, bu həlledici dəqiqələrdə bizimlə olmalıdır. Sizinlə görüşmək istəyirəm, sizdən kömək gözləyirəm" sözləri ilə ifadə olunan xalqa müraciətindən bir saat keçməmiş, Prezident Sarayının qarşısındakı meydanda yüz minlərlə insan dənizi kükrəyirdi. Heydər Əliyev-Xalq, Xalq-Heydər Əliyev birliyinin qüdrəti və qüvvəsi bircə bu faktla isbat edilir.

Ulu öndər Heydər Əliyev zaman-zaman qəbul etdiyi tarixi qərarları ilə , sözün əsl mənasında, yeniləşməkdə olan müstəqil Azərbaycan dövlətinin qurucusuna çevrildi. 1994-cü il sentyabrın 20-də ölkənin tarixində son dərəcə taleyüklü bir hadisə baş verdi. Azərbaycan dövlətinin və xalqının firavan və xoşbəxt həyatının zəmanətinə çevrilmiş, sürətli inkişafa və tərəqqiyə, müstəqilliyin dönməzliyinə və təhlükəsizliyinə təminat verən, neft müqaviləsi – "Əsrin müqaviləsi" imzalandı.

Məhz ulu öndərin qətiyyəti, iradəsi və cəsarəti sayəsində Azərbaycanın "qara qızılı" bu millətin ağ günlərinin tarixini yazmağa başladı. Ulu öndərin öz sözləri ilə desək: "Azərbaycanın böyük neft və qaz

sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün, eləcə də gələcəkdə xalqımızın yaxşı yaşaması üçün, ölkəmizin inkişaf etməsi üçün ən əsas amildir". Bu sözlərin müəllifi ölkəsinin karbohidrogen ehtiyatlarını strateji xammaldan böyük siyasətin, dünyada gedən inteqrasiya proseslərinin, milli təhlükəsizlik konsepsiyasının faktoruna çevirməyi bacardı. Tarixən ayrı-ayrı dövlətlər, eləcə də bütövlükdə bəşəriyyətə bir çox müsibətlər yaşatmış "qara qızıl" məhz ulu öndərin düşünülmüş, ağıllı taktiki addımları sayəsində dünyanın transmilli neft korporasiyaları Bakıda toplaşdı. Bir müddət sonra isə ümummilli liderin minbir zəhməti sayəsində Bakı-Tbilisi-Ceyhan ixrac boru kəməri reallığa çevrildi ki, bunun da sayəsində bir vaxtlar çoxlarına xəyal kimi görünən "üç dəniz əfsanəsi" gerçəkləşdi. Beləliklə də, Azərbaycan dövləti regionda sülhün dayağına, qədim tarixə malik Bakı şəhəri isə əməkdaşlıq "paytaxt"ına çevrildi və ümummilli lider Heydər Əliyev Azərbaycan neftini Azərbaycan xalqının və dövlətçiliyinin prinsipial maraqlarına uyğun işlətmək kimi çətin bir missiyanın öhdəsindən bacarıqla gəldi.

Məhz bu dövrdən etibarən Azərbaycan Respublikası bütün sosial-iqtisadi istiqamətlərdə sürətlə inkişaf etməyə başladı. Tezliklə ölkədə siyasi-iqtisadi stabilliyi təmin edən ulu öndər ölkəyə rəhbərlik etdiyi əvvəlki dövrlərdə olduğu kimi, müstəqil Azərbaycanda da elmin, təhsilin hamisinə çevrildi. Dövlət rəhbəri və siyasətçi kimi bütün müsbət xüsusiyyətləri özündə cəmləşdirən Heydər Əliyev çox düzgün olaraq elm-təhsil sahəsinə xüsusi diqqət göstərirdi.

Aydındır ki, bir milləti məhv etmək üçün onun elmini, təhsilini məhv etmək kifayətdir. Məhz bu konteksdən yanaşdıqda, Heydər Əliyev Azərbaycan xalqını məhv olmaqdan xilas etdi. Ölkəyə rəhbərliyin ilk illərində sürətli iqtisadi inkişafın təmin edilməsini, Azərbaycanın dünyaya yaxından inteqrasiya olunmasını, beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilməsini əsas məqsəd kimi seçən ümummilli lider ölkədə təhsil islahatları aparılmasının zəruriliyini vurğulayaraq, hər bir inkişafın elm və təhsildən asılı olduğunu qeyd edirdi. Ulu öndərin öz sözləri ilə desək: "Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir".

Müşahidələr göstərir ki, həqiqətən də belə bir prinsipin seçilməsi Azərbaycanda təhsil siyasətinin əsas qayəsini təşkil etmişdir. Son dövrlər həyata keçirilən islahatlar proqramına əsasən fəaliyyətin prioritet istiqamətlərinə diqqət yetirdikdə, Heydər Əliyevin təhsil strategiyasının nə qədər fundamental bir konsepsiya olduğu aydınlaşır.

Məlumdur ki, milli intibahın təminatında başlıca vasitə sayılan elm və təhsil cəmiyyətdə bir çox problemlərin həllində mühüm rol oynayır. Dünyəvi təhsilə inteqrasiya yolunu seçən Azərbaycan Respublikasında müstəqilliyin bərpasından sonra bu strateji sahəyə milli təhlükəsizliyin mühüm amillərindən biri kimi xüsusi diqqətin yetirilməsi bu nəticəyə gəlməyə əsas verir ki, ölkədə elm və təhsil problemləri ümumi inkişaf və dövlət siyasəti ilə vəhdət təşkil edir. Tərəqqiyə gedən yolda uğurlar qazanmaq isə dünyanın sivil dövlətləri ilə diplomatik əlaqələrin yaradılması, sosial-iqtisadi, mədəni, elm-təhsil və digər sahələrdə beynəlxalq norma və tələblərə uyğun əməkdaşlığın qurulması zəruridir. Bunun üçün də xüsusilə strateji əhəmiyyətə malik olan təhsil sistemində köklü islahatlar aparılması Azərbaycan dövlətinin ali məqsədinə çevrilmişdir. Bu mənada ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi həm birinci, həm də ikinci dönəmində reallaşdırılan təhsil siyasətinin müxtəlif aspektlərini araşdırmaq üçün bu strateji əhəmiyyətli sahənin dünəninə və bu gününə diqqət yetirmək kifayətdir.

Bir faktı qeyd etmək kifayətdir ki, ümummilli lider Heydər Əliyevin Azərbaycanda elm və təhsillə bağlı siyasəti artıq real şəkildə özünün müsbət təzahürünü göstərməkdədir. Belə ki, ulu öndər bu sahələrə xüsusi həssaslıqla yanaşmış və daim qayğı göstərmişdir. Ümummilli lider öz çıxışlarında da dəfələrlə təhsilin mürəkkəb və olduqca vacib bir sahə olduğunu vurğulayaraq qeyd etmişdir ki, "təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır".

Tarixi reallıqlardan aydındır ki, Heydər Əliyev SSRİ dövründə, yəni Azərbaycan Respublikasına rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində də bu məsələni daim diqqət mərkəzində saxlamış, eləcə də xalqımızın unudulmaz oğlunun rəhbərliyi ilə təhsil sistemində ciddi islahatlar həyata keçirilmişdir. 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilərək 765-dən 2117-yə çatdırılmışdır. Bu da yüzlərlə ucqar yaşayış məskənlərində orta ümumtəhsil məktəblərinin açılışı, minlərlə azyaşlının təhsilə cəlb edilməsi demək idi.

Bir məsələni də qeyd etmək lazımdır ki, ümummilli lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Eləcə də dahi rəhbər keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində

azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaratmışdır.

Ulu öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Məsələn, 2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir. Bu sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur.

Qeyd olunduğu kimi, ulu öndərin təhsil siyasəti konsepsiyasına əsaslanaraq demək olar ki, elm və təhsil iki müstəqil sahəni ehtiva etsə də onların birini digərindən təcrid etmək mümkün deyildir və bu baxımdan elm-təhsil problemlərinə kompleks şəkildə yanaşılmışdır. Hər iki istiqamət ümumi dövlət siyasətinin tərkib hissələrindən olduğundan və strateji mahiyyət daşıdığından onların inteqrasiyası da labüddür. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövrünə nəzər yetirsək, görərik ki, elm ilə təhsilin inteqrasiyası istiqamətində də çox önəmli işlər görülmüşdür. Əslində, bu iki müstəqil sistemin həmişə qarşılıqlı əlaqəli şəkildə inkişafı labüddür. Çünki elmin təhsilsiz, təhsilin isə elmsiz mövcudluğu qeyri-mümkündür.

İnkişaf etmiş ölkələrin təcrübəsi də sübut edir ki, fundamental tədqiqatlar aparılmayan ölkələrdə yüksək keyfiyyətə malik təhsil haqqında danışmaq mənasızdır. Eyni zamanda, harada ki baza rolunu oynayan keyfiyyətli orta təhsil yoxdursa, orada geniş əhatəli fundamental tədqiqatlar aparılması qeyri-mümkündür. Ümumiyyətlə, dövlətin iqtisadi qüdrətini, onun elm tutumlu və rəqabətə davamlı məhsulunun istehsalını elmi tədqiqatların, xüsusən fundamental tədqiqatların səviyyəsi, əhatəliliyi və yüksək ixtisasa malik milli kadrlar müəyyən edir. Başqa sözlə desək, müasir dünya gerçəkliklərinə yaxından bələd olan, müasir texnika və texnologiyanı mənimsəyən kadrlar yetişdirmədən, eləcə də ölkədə həyata keçirilən islahatları elmi baxımdan əsaslandırmadan mövcud təbii-iqtisadi resurslardan tam və səmərəli istifadə etmək və arzu edilən iqtisadi inkişaf səviyyəsinə nail olmaq qeyri-mümkündür. Bu baxımdan Azərbaycan Milli Elmlər Akademiyası ölkənin texniki-texnoloji, eləcə də sosial-iqtisadi inkişafının avanqardına çevrilməlidir. Məhz bu reallığı nəzərə alan ulu öndər Heydər Əliyevin "Milli Elmlər Akademiyası sistemində yüksək ixtisaslı elmi kadrlar hazırlayan təhsil qurumlarının, respublikada prioritet istiqamətlərdə müstəqil fəaliyyət göstərən dövlət elm-təhsil mərkəzlərinin işi daim gücləndirilməli və zənginləşdirilməlidir" fikri də akademiyanın potensialının və texniki bazasının gücləndirilməsinə, ölkədə fundamental elmi tədqiqatların aparılmasına yönəlmişdir.

Təbii ki, bu prosesdə inteqrasiyanın vacib amillərindən biri də AMEA-da çalışan müxtəlif ixtisaslı alimlərin birgə proqramlar üzərində işləməsi, ölkənin hərtərəfli inkişafını təmin etməyə qadir olan kompleks inkişaf proqramları işləyib hazırlaması olduqca vacib şərtdir. Belə proqramların həyata keçirilməsi elmi kadr potensialının inkişafına və təhsil səviyyəsinin yüksəlməsinə gətirib çıxarar ki, bu da tədqiqatların sürətlənməsinə, eləcə də nəzəri-praktiki əhəmiyyətinin artmasına kömək edər.

Bu da danılmaz faktdır ki, ulu öndər Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına əsasən ali məktəblərimizin əksəriyyətində təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün, demək olar ki, lazımi şərait yaradılmışdır. Son dövrlər hər il tələbələrin müxtəlif fənlər üzrə respublika olimpiadaları, konfranslar, aspirantların və gənc tədqiqatçıların respublika simpoziumları, müsabiqələr keçirilir ki, bu da elmə, elmi tədqiqatlara olan marağı daha da artırır. Eyni zamanda, araşdırmalardan aydın olur ki, 1998-ci ildən bu günə qədər elmi-tədqiqat müəssisələrinin və ali məktəblərin 1500-dən artıq əməkdaşı müxtəlif ölkələrdə – ABŞ, Böyük Britaniya, Polşa, Rusiya, Türkiyə, Almaniya, Yunanıstan və başqa ölkələrdə yaradıcı ezamiyyətlərdə olmuş, Azərbaycan elmini yüksək səviyyədə təmsil etmişlər. Nəzərə alsaq ki, istənilən sahədə, o cümlədən elmdə sürətli inkişafın başlıca amillərindən biri də çevik inteqrasiya və beynəlxalq əməkdaşlıqdır, onda yuxarıda qeyd edilənlər də Azərbaycan elminin inkişafı istiqamətində atılmış mühüm addım kimi qəbul edilə bilər.

Bütün sahələrdə olduğu kimi, Azərbaycan elminin də inkişafı istiqamətində ümummilli lider Heydər Əliyevin siyasəti bu gün islahatların zəruriliyinə ciddi diqqət yetirən ölkə başçısı cənab İlham Əliyev tərəfindən

uğurla davam etdirilir. Təbii ki, yuxarıda qeyd edildiyi kimi, keyfiyyətli orta təhsili olmayan, yəni baza təhsilinə malik olmayan insanların ciddi elmi araşdırmalar aparması qeyri-mümkündür. Bu baxımdan da, elmin və elmi tədqiqatların inkişafından söhbət gedirsə, ilk növbədə orta ümumtəhsil sisteminə diqqət yetirilməsi zəruridir. Təbii olaraq, elm və təhsilə göstərilən diqqətin nəticəsidir ki, ümummilli lider Heydər Əliyev özünün milli dövlət quruculuğu strategiyasında təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşmış, bu sahəyə diqqət və qayğısını həmişə önə çəkmişdir. Ulu öndər təhsilin dünya standartlarına uyğun inkişafı, müəllimlərin, elm adamlarının əməkhaqlarının artırılması, məktəb şəbəkəsinin genişləndirilməsi ilə bağlı onlarla tarixi əhəmiyyətli fərman və sərəncamlar, islahat və dövlət proqramlarını təsdiq edən sənədlər imzalamışdır ki, bunlar da birbaşa elmdə və təhsildə problemlərin həllinə yönəlmişdir.

Məxsusi olaraq qeyd olunmalıdır ki, islahatların keçirilməsi təhsil siyasətinin mühüm amillərindəndir. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda təhsil siyasətini uğurla davam etdirən cənab İlham Əliyevin bircə sərəncamına diqqət yetirməklə onun strateji mahiyyətinə aydınlıq gətirə bilərik. Ölkə başçısının "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramının (2005-2007-ci illər) təsdiq edilməsi haqqında" 21 avqust 2004-cü il tarixdə imzaladığı sərəncam bu günümüz üçün zəruri olan informasiya texnologiyalarından müasir tələblərə uyğun istifadə problemlərinin həlli baxımından strateji əhəmiyyət kəsb edir. Təbii olaraq, bu tarixi sənəd indiyədək bu sahədə mövcud olan boşluqların doldurulmasına, dünyəvi təhsilə inteqrasiya yönümündə çatışmazlıqların aradan qaldırılmasına, gənc nəslin müasir standartlara uyğun daha dərindən savadlanmasına önəmli kömək göstərir. Artıq bu günün reallıqları sübut edir ki, Heydər Əliyevin siyasi kursuna uyğun aparılan islahatlar müsbət nəticələr verir və Azərbaycan dövlətini bütün dünyada layiqincə təmsil etməyə, eləcə də ölkənin hərtərəfli inkişafında yaxından iştirak etməyə qadir olan gənc nəslin yetişməsinə şərait yaradır. Milli Tərbiyə Konsepsiyasının hazırlanması, təhsilin məzmununda inteqrasiya modellərinə keçid, təhsil sisteminin kompyuterləşdirilməsi və informasiyalaşdırılmasına dair Dövlət Proqramının təsdiqi və praktiki tətbiqi, təhsildə elmi istiqamət faktorlarının gücləndirilməsi, təhsillə elmin vəhdətini təmin etmək məqsədilə prioritet sahələr üzrə elmi araşdırmaların, tədqiqatların aparılmasının intensivləşdirilməsi, dünya təhsil sisteminə inteqrasiyanın gücləndirilməsi məqsədilə proqramlar, layihələr üzərində fəaliyyətin müntəzəm olaraq davam etdirilməsi və digər məsələlərdən strateji istiqamətlər aydın görünür. Ulu öndər Heydər Əliyevin elm və təhsil siyasətinin prioritetlərindən biri də hər iki sahənin idarə edilməsinə yeni yanaşmanın olmasıdır. Belə ki, əgər güclü təhsil sistemi gələcəyin elmi tədqiqatçılarının hazırlanmasına xidmət edirsə, elmi araşdırmalar da, öz növbəsində, ölkənin ayrı-ayrı sahələrinin müasir tələbata və qabaqcıl təcrübəyə uyğun inkişafını təmin etməlidir.

Beləliklə, yuxarıda qeyd edilənlərdən aydın olduğu kimi, Heydər Əliyev bütün həyatı boyu öz xeyirxah əməlləri və ədalətli mövqeyi ilə xalqımızın güvənc yerinə çevrilmişdir. İstər müasir tələbata uyğun elmi kadrların hazırlanmasında, istər Azərbaycan Respublikasının beynəlxalq aləmə və qlobal iqtisadi mühitə sürətlə inteqrasiya etməsində, istərsə də ölkənin sosial-iqtisadi istiqamətlərdə ciddi uğurlar qazanmasında ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə reallaşan tədbir və islahatların rolu danılmazdır. Heydər Əliyevin bir dövlət və siyasi xadim kimi ölkə, milli iqtisadiyyat, eləcə də onun ayrı-ayrı sahələri qarşısında duran problemlərə kompleks şəkildə yanaşması bu gün əldə edilən ciddi uğurların əsas təkanvericisidir. Məhz bu yanaşmanın nəticəsidir ki, sosial-iqtisadi və siyasi istiqamətlərdə qazanılmış müvəffəqiyyətlər biri-birinə təkan verməklə, vahid bir prosesə çevrilir. Eyni zamanda, əsas uğurlardan biri də ondan ibarətdir ki, həyata keçirilən islahatlar içərisində elmin inkişafı prioritet kimi qəbul edilir və həyata keçirilən bütün islahatlar elmi cəhətdən əsaslandırılır. Bu baxımdan qanunların və digər normativ sənədlərin qəbul edilməsində, dövlət proqramlarının hazırlanmasında və s. elm adamlarının yaxından iştirak etməsi, müvafiq mütəxəssislərin iştirakı ilə geniş müzakirələrin aparılması xüsusi qeyd olunmalıdır.

Günümüzün reallıqları sübut edir ki, hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu istiqamətdə aparılan işlər Azərbaycan xalqının xoş gələcəyinə xidmət edəcək səviyyədə uğurla davam etdirilir. Eyni zamanda, bütün bunlar elm adamlarının daha da fəallaşmasını, ölkədə həyata keçirilən islahatların elmi əsaslarının işlənib hazırlanmasında xüsusi fəallıq göstərilməsini tələb edir. Məlumdur ki, ən əhəmiyyətli nəticə nəzəri və praktiki biliklərin birləşməsindən əldə edilir. Başqa sözlə desək, praktiki əhəmiyyəti olmayan nəzəri düşüncələr bazar iqtisadiyyatının hökmran olduğu müasir dövrümüzdə tədricən sıradan çıxır. Bu baxımdan da, elm adamlarının praktiki cəhətdən əhəmiyyətli olan təklif və tövsiyələrlə çıxış etməsi ölkənin davamlı sosial-iqtisadi inkişafının başlıca amillərindən biri kimi qəbul edilməlidir. Yalnız bu halda əldə edilmiş dinamik inkişafı davamlı inkişafa çevirmək mümkündür.

"**Xalq qəzeti**".-2009.-12 dekabr.-N 276.-S.6.

## HEYDƏR ƏLİYEV - AZƏRBAYCAN ORDUSUNUN QURUCUSUDUR

**İbrahim RÜSTƏMOV,**
əməkdar jurnalist.

**Ümummilli liderimizin bu yöndə yeritdiyi siyasət layiqincə davam etdirilir**

Hər bir dövlətin müstəqilliyinin, suverenliyinin əsas atributlarından biri də onun silahlı qüvvələridir. Azərbaycan ordusunun 1918-ci ildən başlayan kəşməkəşli və şərəfli inkişaf yolu hərb tariximizin möhtəşəm salnaməsidir. Bu tarixi başlanğıcın əsası torpaqlarımızın bütövlüyü naminə canlarını fəda edən babalarımızın müqəddəs qanı ilə qoyulmuşdur. Sevindirici haldır ki, zamanın sınağından alnıaçıq, üzüağ çıxan Silahlı Qüvvələrimiz bu gün Azərbaycanı istənilən təcavüzdən qorumağa qadir bir qüvvə kimi günümüzün danılmaz reallığına çevrilmişdir. Bu uğuru ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında azadlıq və müstəqillik ideyalarının tam təmin olunması naminə hazırlanan ordu quruculuğu konsepsiyasının təntənəsi kimi dəyərləndirmək olar.

Ulu öndər Heydər Əliyevin xalqımız üçün qoyduğu zəngin və əvəzsiz irs ölkəmizin gələcək inkişaf perspektivlərini müəyyənləşdirən fundamental bir fəaliyyət proqramıdır. Bu çoxcəhətli, zəngin fəaliyyət proqramının ən mühüm qollarından birini, heç şübhəsiz, ordu quruculuğu təşkil edir. Bu istiqamətdə Heydər Əliyev fəaliyyətinin qlobal miqyası Azərbaycanın bugünkü reallıqları ilə yanaşı, həm də keçmişinin və gələcəyinin prizmasından əzəmətli görünür. Belə ki, hələ sovet hakimiyyəti illərində respublikamıza rəhbərlik edən ulu öndərimizin ordu quruculuğu, xüsusilə də hərbi təhsil sisteminin təməlini qoymaq istiqamətində həyata keçirdiyi tədbirlər bu gün öz tarixi təsdiqini tapmaqdadır. O vaxtlar Heydər Əliyevin təşəbbüsü və təkidi ilə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəbin yaradılması, ölkənin ali hərbi məktəblərinə göndərilən azərbaycanlı gənclərin sayının artırılması, onların qəbulunda konkret güzəştlərin tətbiqi respublikamızın gələcəyinə hesablanmış uzaqgörən siyasətin nəticəsi idi. Ən azı ona görə ki, ulu öndər əsası 1918-ci ildə qoyulan ənənələri yeni tarixi şəraitdə davam etdirirdi. Təkcə onu demək kifayətdir ki, ilk tədris ilində iki onuncu sinif komplektləşdirilmiş və məktəbə birinci qəbul 400 nəfərdən çox olmuşdur. 1970-80-ci illərdə Azərbaycan hökuməti məktəbin tədris-maddi bazasının və təlim-tərbiyə işinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirmiş və bunun nəticəsində lisey keçmiş sovetlər birliyində analoqu olmayan təhsil ocağına çevrilmişdir. Bütün bunlar, heç şübhəsiz, Heydər Əliyev kimi əsl sərkərdənin gündəlik diqqət və qayğısı sayəsində mümkün olmuşdur. Ötən müddət ərzində məktəbi 10 minə yaxın gənc bitirmiş və ali hərbi məktəblərə daxil olaraq böyük ordu həyatına vəsiqə almış, Azərbaycanın hərb salnaməsinə yaddaqalan səhifələr yazmışdır. Təkcə onu demək kifayətdir ki, Qarabağ müharibəsində adıçəkilən təhsil ocağının 1500 nəfərdən çox məzunu erməni işğalçılarına qarşı vuruşlarda əsl qəhrəmanlıq nümunələri göstərmişdir. Ulu öndərin həmişə qürurla öz doğma övladı adlandırdığı C. Naxçıvanski adına lisey bu gün də üzərinə düşən missiyanı uğurla yerinə yetirir. Ulu öndəri bu məktəbə, sözün həqiqi mənasında, çox böyük mənəvi və tarixi tellər bağlayırdı. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Prezidentinin 13 mart 1998-ci il tarixli sərəncamı və müdafiə nazirinin müvafiq əmri ilə Naxçıvan Muxtar Respublikasında C. Naxçıvanski adına hərbi liseyin filialı açılmış, Prezident İlham Əliyevin 27 fevral 2004-cü il tarixli sərəncamı ilə bu filialın əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılmışdır. Bu təhsil ocaqlarının maddi-tədris bazası yüksək standartlara cavab verir və idman, mədəni-məişət komplekslərini əhatə edir. Kursantların istifadəsində müasir kompyuter kabinetləri, sürətli dil öyrətmə kabinetləri və təbiət elmləri laboratoriyaları var. Böyük təəssüf hissi ilə qeyd olunmalıdır ki, 90-cı illərin əvvəllərində milli dövlət və ordu quruculuğunun ilkin mərhələsində əsası Heydər Əliyev tərəfindən qoyulmuş varislik ənənələri tamamilə unuduldu. Azərbaycan ordusu düşmən təcavüzünün qarşısını almaq əvəzinə, siyasi məqsədlərə cəlb edildi və hakimiyyət uğrunda mübarizədə alətə çevrildi. Belə bir vaxtda peşəkar hərbçilərin səyləri, döyüş meydanlarında göstərdikləri qəhrəmanlıqlar da sadəcə epizodik xarakter daşıyırdı.

Dağılmaq təhlükəsi qarşısında qalan Azərbaycan dövlətçiliyini məhz Heydər Əliyevin xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdışı xilas etdi. Ulu öndər ordu quruculuğuna elmi prinsiplər əsasında yanaşaraq qısa vaxt ərzində bu mühüm prosesi dövlət quruculuğunun tərkib hissəsinə çevirdi, hərbi hissələri siyasiləşmiş qüvvələrdən təmizlədi. Ardıcıl həyata keçirilən tədbirlər sayəsində ordu ilə xalqın vəhdəti, orduda mərkəzləşdirilmiş komandanlıq prinsipi tam təmin edildi.

Silahlı Qüvvələrin maddi-texniki təminatı möhkəmləndirildi, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırıldı. Tam elmi-nəzəri prinsiplər üzərində qurulan Silahlı Qüvvələrimiz keyfiyyətcə yeni bir mərhələyə qədəm qoydu. Məhz ulu öndər Silahlı Qüvvələrimizin daha da möhkəmlənməsi, xüsusilə də ordumuz üçün hərbi kadrlar hazırlayan hərbi təhsil sisteminin modernləşməsi üçün strateji xarakterli tədbirlər həyata keçirdi. Onun 1999-cu il fevralın 20-də Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaradılması, 20 avqust

2001-ci ildə respublikamızda fəaliyyət göstərən hərbi məktəblərin statusunun artırılması və nəhayət, 17 avqust 2002-ci ildə Silahlı Qüvvələrə Yardım Fondunun yaradılması haqqında imzaladığı fərmanlar, heç şübhəsiz, bu istiqamətdə əsaslı dönüş yaratdı. Bütün bunların nəticəsidir ki, hazırda Azərbaycanda güclü maddi-tədris bazasına, müasir texnologiyalara malik, yeni tədris metodları ilə fəaliyyət göstərən, uğurları ölkəmizin sərhədlərindən də uzaqlara yayılan hərbi təhsil sistemi mövcuddur. Bu gün Azərbaycanın ali hərbi məktəblərində bir sıra xarici ölkələrin nümayəndələri təhsil alırlar.

Ümummilli liderimizin 1993-cü il noyabr ayının 4-də Əfqanıstan müharibəsi iştirakçılarının könüllü cəbhəyə yollanmaq istəyən bir qrupu ilə, noyabrın 7-də isə hərbi hissələrdən birinin təlim mərkəzində şəxsi heyətlə görüşləri ordu-da mənəvi əhval-ruhiyyənin güclənməsinə, gənclərdə hərbi-vətənpərvərlik hisslərinin formalaşmasına müsbət təsir göstərdi. Ordu quruculuğunda aparılan kompleks işlərin nəticəsində Azərbaycan Respublikasının qanunvericilik orqanı olan Milli Məclisin 18 noyabr 1993-cü il tarixli iclasında müdafiə və təhlükəsizlik məsələləri müzakirə edildi. Qısa müddət ərzində ordu quruculuğunun qanunvericilik bazası yaradıldı, Milli Məclis tərəfindən "Silahlı Qüvvələr haqqında ", "Hərbi xidmət haqqında ", "Müdafiə haqqında", "Hərbi qulluqçuların statusu haqqında" və s . qanunlar qəbul edildi.

Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq əlaqələrinin qurulması və genişlənməsi də məhz ümummilli liderimizin adı ilə bağlıdır. Bu əlaqələrin əsası 1994-cü ildə qoyulmuşdur. Belə ki, həmin il may ayının 4-də Azərbaycan Respublikası NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulmuş, 1996-cı ilin aprel ayında isə Azərbaycan Prezidenti NATO-nun Baş katibinə Azərbaycanın prezentasiya sənədlərini təqdim etmişdir. Azərbaycan dövləti bu istiqamətdə keçirilən tədbirlərdə fəal iştirak edir. Belə ki, Silahlı Qüvvələrimizin sülhməramlı taqımı Türkiyə Respublikası Silahlı Qüvvələrinin sülhməramlı taborunun tərkibində 1999-cu ilin sentyabr ayından Kosovoda, 2002-ci ilin noyabr ayından Əfqanıstanda, 150 nəfərdən ibarət sülhməramlı bölüyü isə 2003-cü ilin avqust ayından ABŞ Silahlı Qüvvələrinin kontingenti tərkibində İraqda sülhməramlı missiyanı yerinə yetirməyə başlamışdır. Sülhməramlılarımızın nümunəvi xidməti haqqında yerlərdəki qoşunların ali komandanlıqları tərəfindən Azərbaycan Respublikası müdafiə nazirinin ünvanına göndərilən təşəkkür məktubları hərbçilərimizin peşəkarlığından və yüksək döyüş hazırlığından xəbər verir. Bundan əlavə, Azərbaycan ilə NATO arasında hər il fərdi əlaqələndirmə proqramı hazırlanır və təsdiq edilir ki, bu da Silahlı Qüvvələrimizin NATO standartlarına uyğunlaşdırılması, mərkəzləşdirilmiş maddi-texniki bazasının yaradılması, hərbi təhsil sisteminin yeni prinsiplər əsasında qurulmasına əsaslı zəmin yaratmışdır. Bütün bunları nəzərə alan ümum-milli liderimiz yüksək tribunalardan dəfələrlə demişdir: "On il ərzində ordumuz gücləndi, inkişaf etdi və bu gün, demək olar ki, bizim ordumuz çox yüksək səviyyədədir. Qarşıda duran bütün vəzifələri həll etməyə qadir ordudur".

Azərbaycanda hərbi quruculuq bu gün də yüksələn xətlə inkişaf edir. Bunun ən başlıca səbəbi isə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dövlət başçısı postunda fəaliyyətə başladığı ilk gündən ümummilli liderimizin həyata keçirdiyi strateji əhəmiyyətli tədbirləri və ənənələri uğurla davam etdirməsi, o cümlədən, ordu quruculuğu işini prioritet elan etməsi ilə bağlıdır. Prezident İlham Əliyevin Naxçıvanda, Gəncədə, Tərtərdə, bir sözlə, cəbhə xəttində yerləşən hərbi hissələrimizə daim baş çəkməsi, xidmətdə fərqlənən hərbi qulluqçuları şəxsən mükafatlandırması, yerlərdəki vəziyyətlə maraqlanması ordu mənsublarında böyük ruh yüksəkliyi yaratmışdır. Heydər Əliyev kursunun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev ordu problemlərini hər an diqqət mərkəzində saxlayır, Silahlı Qüvvələrimizin döyüş hazırlığının artırılmasını dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi dəyərləndirir. Ali Baş Komandanın cəbhə xəttindəki hərbi hissələrə əsgəri qəhrəmanlıq, şücaət və mərdlik rəmzi olan Döyüş bayraqlarını təqdim etməsi, bir tərəfdən orduya diqqət və qayğının bariz nümunəsidirsə, digər tərəfdən də ordu mənsublarına göstərdiyi inam və etimaddır. Hər il orduya aid xərclərin artırılması, hərbi qulluqçuların maddi rifah halının yaxşılaşdırılması yönündə dövlət rəhbərliyi tərəfindən atılan addımlar, həyata keçirilən tədbirlər hərbi qulluqçuların üzərinə çox ciddi məsuliyyət qoyur. Son dövrlər dövlət başçısının Dağlıq Qarabağ probleminin həlli ilə əlaqədar verdiyi bəyanatlar da əslində həm də orduya olan inamdan qaynaqlanır. Şübhə yoxdur ki, Azərbaycan hərbçiləri əsl qurucusu ümummilli liderimiz Heydər Əliyev olan Silahlı Qüvvələrimizin sıralarında bundan sonra da yüksək döyüş hazırlığına yiyələnərək ləyaqətlə xidmət edəcək, həm ölkə rəhbərliyinin, həm də bütövlükdə xalqımızın inam və etimadını doğruldacaqlar.

**"Respublika".-**2009.-12 dekabr.-N 270.-S.7.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN XALQININ TARİXİ

**Əjdər FƏRZƏLİ,**
filologiya elmləri namizədi

Azərbaycanı dünyaya tanıtmaq üçün onun xalqının dahi oğlu yetişməli idi. Bu dahi şəxsiyyət Azərbaycan xalqının müdrik atası və rəhbəri Heydər Əliyev oldu. O, doğma Azərbaycanı təkcə keçmiş SSRİ-də deyil, bütün dünyada tanıtdı. Heydər Əliyev öz böyük şəxsiyyəti, düşmənləri lərzəyə gətirən əzəməti və əyilməz vüqarı ilə mənsub olduğu Azərbaycan xalqının adına misilsiz şan-şöhrət gətirdi. O, öz böyüklüyünü xalqının böyüklüyü kimi təcəssüm etdirdi.

Heydər Əliyev dühası Azərbaycanın, tarixin əlçatmaz çağlarından XX əsrədək yaşamış ədəbiyyat, elm və mədəniyyət xadimlərini də dünyaya yenidən tanıtdı.

Heydər Əliyevin parlaq şəxsiyyəti, dünyanı heyran qoyan siyasi diplomatiyası belə bir həqiqəti təsdiq etdi ki, Azərbaycan xalqının əvvəllər kifayət dərəcədə tanınmamasında keçmiş SSRİ- nin və dünyanın böyük günahı olub.

Azərbaycanın yeni tarixi Heydər Əliyevin adı ilə, Heydər Əliyev səhifələri ilə başlandı və Azərbaycan dünyada "Heydər Əliyevin əsəri" kimi məşhur oldu.

Heydər Əliyevin tarixi hünəri bir daha sübuta yetirdi ki, tarixdə şəxsiyyətin rolu danılmazdır.

Heydər Əliyev Azərbaycanın yeni tarixini ölməz əməlləri ilə bu günün, sabahın və uzaq gələcəyin nəbzini tutan müdrik sərəncamları və tarixi qərarları ilə yazdı. Məhz Heydər Əliyevin sərəncamı ilə Azərbaycan tarixinin yenidən yazılmasına başlanıldı.

Bununla əlaqədar ulu öndərimiz alimlərimizə, ziyalılarımıza yerinə yetirilməsi son dərəcə vacib proqram – tapşırıqlar verib.

Bu proqramda ən ümdə məsələlərdən biri: azərbaycançılığın -Azərbaycan xalqının ulu inamlarının, milli adət-ənənələrinin, soy düşüncəsinin, bəşər mədəniyyətinə, sivilizasiyaya Azərbaycan xalqının bəxş etdiyi yaradıcılıq nailiyyətlərinin həm öz xalqımıza, həm də bütün dünya xalqlarına göstərilməsinə nail olmaqdır.

Bundan ötrü isə Azərbaycan ərazisində arxeoloji abidələr, başqa mədəniyyət nümunələrinə diqqət və məhəbbət, yeni elmi istiqamətdə, inamla davam etdirilməlidir. Xüsusən də Gəmiqaya və Qobustan qaya təsvirlərinin yeni istiqamətdən tədqiqinə başlanılmalıdır. Ulu öndər təkidlə tələb edirdi ki, məhz yeni tədqiqatların aşkara çıxara biləcəyi biliklər, tapıntılar, kəşflər əsasında Azərbaycan xalqının tarixi yazılmalıdır; bunların da əsasında biz Azərbaycanı və Azərbaycan xalqını dünyaya yenidən tanıtmalıyıq. Dünya Azərbaycanı yenidən kəşf etməlidir. Biz doğma Azərbaycanımızın keçmiş əzəmətini və şöhrətini aşkar etməli, qiymətləndirməli və özünə qaytarmalıyıq.

Son illər Azərbaycan haqqında bir çox kitablar, məqalələr yazılsa da, "Azərbaycan xalqının tarixi" adlı əsər hələ yazılmayıb.

"Erməni xalqının tarixi" adlı kitablar isə hələ SSRİ vaxtında neçə clddə yazılıb, müxtəlif dillərə tərcümə edilərək dünyaya yayılıb. Məqsəd də həmişə bir olub. Azərbaycan xalqının əleyhinə, birbaşa Azərbaycana tuşlanmış silah tarixi. Xatırladaq ki, Azərbaycan xalqının tarixinin bir çox parlaq səhifələri erməni müəlliflərinin uydurmaları ilə "erməni xalqının tarixi"nə daxil edilib. Azərbaycan folklorunun çox hissəsi, Azərbaycanda ərəblərin işğalına qədər yaradılmış bütün tarixi abidələrimiz, musiqimiz, xalçalarımız və daha nələrimiz dünyaya "erməni" möhürü ilə təqdim olunub. Azərbaycanın bütün ərazisinin "qədim Ermənistan" kimi tanıdılmasına cəhd edilib.

Bizdə bu böhtanlara qarşı nə qədər kitablar yazılsa da, düşmənə əsl cavabımız məhz "Azərbaycan xalqının tarixi" kitabımız olacaq.

Ümummilli liderimiz belə bir kitabın yazılmasını dönə-dönə tövsiyə edirdi. O kitab gec də olsa, Heydər Əliyevin tələb etdiyi səviyyədə yazılmalı, dahi rəhbərin dediyi kimi həm öz xalqımıza, həm də bütün dünyaya çatdırılmalıdır.

Dahi rəhbərimiz bu sahədəki nöqsanlarımızdan narahat danışırdı. O. xalqımızın, Vətənimizin tarixi keçmişini elmi səviyyədə geniş tədqiq etmədiyimiz üçün alimlərimizi, ziyalılarımızı günahlandırırdı.

Ulu öndər 2002-ci ilin avqustunda Azərbaycan MEA Naxçıvan bölməsinin yaradılmasına həsr edilmiş müşavirədə söylədiyi proqram nitqində deyirdi:

"Azərbaycan elə bir ölkədir ki, onun çox qədim tarixi var. Bizim tarixçilər XX əsrdə çox işlər görüblər. Ancaq mən cəsarətlə deyə bilərəm ki, Azərbaycanın, xalqın, ümumiyyətlə, bu torpağın, ölkənin tarixi lazımi səviyyədə öyrənilməyib, tədqiq olunmayıbdır. Bu sahədə çox böyük işlər görülməlidir. Bununla onu demək

istəyirəm ki, Azərbaycan nadir bir ölkədir, bəşər tarixində Azərbaycan bir ərazi kimi və Azərbaycan xalqı bir xalq kimi, böyük tarixi proseslərin iştirakçısı olubdur.

Biz indi müstəqil Azərbaycanda özümüz ölkəmizin, torpağımızın sahibi olduğumuz halda, gərək bu qədim, çox zəngin tariximizi araşdırıb meydana çıxaraq və bu gün də, gələcəkdə də xalqımızın o dərin köklərini ümumi, bəlkə də bəzən çox gözəl ifadələrlə bəzənmiş sözlərlə yox, elmi sübutlarla, elmi əsaslarla həm öz xalqımıza çatdıraq, həm də dünyaya göstərək ki, Azərbaycan xalqının kökü haradandır, tarixi nədir və Azərbaycan bir ölkə kimi bəşər tarixində hansı yeri tutur. Mən açıq deyə bilərəm ki, görkəmli yer tutur. Ancaq biz bunu indiyə qədər göstərə bilməmişik”.

Ulu öndərimiz deyirdi: “İnsan həmişə öz tarixi, öz keçmişi ilə, öz tarixi kökləri ilə, müasir nailiyyətləri ilə fəxr edir. Bunu bizim xalqımız bilsin. Amma bunu bilmir. Bəzi müttəfiq respublikalar bunu bizdən yaxşı edirdilər. Bu həqiqəti demək lazımdır. Bu, bizim alimlərin və bu sahədə işləyən başqa adamların günahıdır. Amma indi müstəqil dövlətik. Biz öz keçmiş zəngin mədəniyyətimizi dünyaya tanıtmalıyıq”.

Dahi rəhbərin hər kəlməsi, hər sözü xalqı qəflətdən oyadan zəng səsidir. Əgər biz həqiqətən Heydəpr Əliyevə sədaqət nümunəsi göstərə biliriksə, ulu öndərimizin proqram çıxışlarından düzgün nəticə çıxarmalıyıq. Heydər Əliyev mədəni irsin öyrənilməsi və qorunmasından danışarkən, qeyd edir ki, erməni ziyalıları Sovet dövründə də bizim ziyalılardan daha fəal olublar. Odur ki, diqqətimizi bu məqama yönəldirdi.

Biz, müstəqilliyin yaratdığı imkanlardan qədərincə yararlana bilirikmi? Heydər Əliyev bununla əlaqədar deyirdi: “İndi müstəqil dövlət şəraitində bizim alimlərimizin böyük imkanları var. Amma alimlərimiz, ziyalılarımız gərək keçmiş sovet sistemində çalışdıqları iş üslubundan uzaqlaşsınlar. Gərək o passivlikdən əl çəksinlər, bəziləri gərək yuxudan ayılsınlar”.

Ulu öndərimizin bu sözləri yaddaşları, vicdanları oyadan siqnaldır. Bu proqram – xəbərdarlıqda bizi geri çəkən, inkişafımızın sürətini ləngidən yaralarımızdan söhbət gedir. İçimizdə haradasa hələ də keçmiş Sovet sisteminin antimilli iş üslubundan uzaqlaşmaq istəməyənlərə ulu öndərin bu sözlərini dönə-dönə xatırlatmaq lazımdır.

Heydər Əliyev deyirdi: “Əgər bizim millətimizin keçmişini, tarixini, mədəniyyətini, onun mənliyini bizim alimlərimiz, ziyalılarımız tədqiq etməsələr, xalqımıza, dünyaya göstərməsələr, sübut etməsələr, bəs bunu kim edəcəkdir?”.

Bu gün bu sualdan heç kim yaxasını kənara çəkə bilməz. Bu suallar peyğəmbər atanın öz doğma xalqına, onun ziyalılarına böyük məhəbbət və nigarançılıqla söylənmiş proqram-xəbərdarlığıdır. Əgər biz, Heydər Əliyevin qurduğu Azərbaycan Respublikasını, Azərbaycan dövlətçiliyini qorumaq və möhkəmləndirmək istəyiriksə, dahi rəhbərin bu dərin kəlamlarına vicdanımız, qeyrətimizlə, hər birimiz öz əməli işimizlə cavab axtarmalıyıq, o kəlamlardan nəticə çıxarmalıyıq.

SSRİ dövründə “Lenin milli siyasəti” pərdəsi altında hətta uzaq tarixi keçmiş “sinfi keçmiş” modelində təbliğ olunurdu. Amma “Lenin milli siyasəti”nin gizli “erməni modeli” də öz işini görürdü:

Ermənistan ərazisində Azərbaycanın yer adları dəyişdirilir, azərbaycanlılar doğma yurdlarından qovulurdular. Ermənilər tam bir həyasızlıqla Azərbaycanın ayrılmaz cənnət guşəsi olan Naxçıvanı “tarixi erməni torpağı” kimi qələmə verir, Naxçıvanın bütün qədim abidələrini “erməni abidələri” adı ilə kitablara salır və bütün SSRİ-də yayırdılar.

Hətta vəziyyət o yerə çatmışdı ki, Azərbaycan alimlərinə, yazıçılarına Naxçıvanın Azərbaycan torpağı olduğunu yazmağı da qadağan etdirirdilər. Gözəl alim Əbülfəz Hüseyni Naxçıvan -Gəmiqaya abidələri haqqında vətənsevərlik ruhunda yazdığı məqaləsinə görə, ermənilərin tələbi ilə Sovet hökuməti tərəfindən hədələrə məruz qaldı. Əbülfəz Hüseyni “Şərq qapısı” qəzetində Gəmiqayanı “xalqımızın mənlik heykəli, ümumbəşəri iftixar abidəsi” adlandırmış, erməni alimlərinin bu ulu abidələrimizlə bağlı iddialarının əsassızlığını sübuta yetirmişdi.

Gəmiqayadan qayğı və məhəbbətlə, iftixarla söhbət açan ulu öndərimiz Heydər Əliyev, Sov.İKP MK rəhbərliyinin 1986-cı ildəki məkrli əməlini xatırlayaraq deyirdi: “Xatirimdədir, mən Moskvada işləyəndə “Şərq qapısı” qəzetində Gəmiqaya haqqında məqalə çıxmışdı. Onu böyük problemə çevirdilər. Ermənilər qalxdılar ki, burada – Azərbaycanda millətçilik var. Xatirimdədir, bir dəfə biz – Siyasi Büronun üzvləri Moskvada Böyük Teatrda mövsümün açılışına getmişdik. Siyasi Büronun üzvləri idi, mən idim, tənəffüs zamanı oturmuşduq, çay içirdik. Qorbaçov məndən soruşdu ki, Azərbaycanda millətçilik çoxdur, yoxsa azdır? Dedim ki, ümumiyyətlə, millətçilik müttəfiq respublikalarda var. Azərbaycan ən beynəlmiləl respublikadır və orada millətçilik başqa respublikalara nisbətən çox azdır. Onda bizim yanımızda oturan Siyasi Büronun üzvlərindən biri qayıtdı ki, yox, Heydər Əliyeviç, yəqin ki, siz düz demirsiniz. Bax, görürsünüzmü, Naxçıvanda “Şərq qapısı” qəzetində məqalə dərc ediblər millətçilik haqqında, filan haqqında…” Mən dedim ki, nə məqalədir? Düzü mənim bundan heç

xəbərim yox idi ki, nə məqalədir, nədir. Bunu şişirdərək elə bir vəziyyətə gətirib çıxarmışdılar ki, SSRİ-nin rəhbərliyi, Siyasi Büro səviyyəsində söhbət gedirdi. Moskvadan buna çox ciddi reaksiya vermişdilər".

İndi biz ulu öndərin bu söhbətlərini də qulağımızda sırğa etməliyik, qədim abidələrimizlə, zəngin tarixi-mədəni keçmişimizlə yalnız fəxr etməklə kifayətlənməli deyilik, biz Gəmiqayanı, Qobustanı, başqa abidələrimizi, müstəqilliyin verdiyi imkandan istifadə etməklə, tamam yeni istiqamətdən tədqiq etməliyik. Bundan ötrü isə, Heydər Əliyevin bizə dönə-dönə tapşırdığı kimi, keçmiş Sovet sistemindəki iş üslubundan əl çəkməliyik.

Azərbaycan xalqının tarixini yad müəlliflərin kitablarından gətirilən sitatlar əsasında yazmaq özünü doğrultmur. Heydər Əliyevin dediyi kimi, bu xalqın, bu ölkənin tarixini yazmaq üçün əsas mənbə Azərbaycanın qədim abidələri, bilavasitə öz maddi-mədəniyyət nümunələridir. Sitatları da öncə buradan: Gəmiqayadan, Qobustandan – öz daş kitablarımızdan gətirmək lazımdır.

Biz, azərbaycançılığın kökünü Heydər Əliyevin nitqlərində, məruzə və çıxışlarında, onun ziyalılara müraciətlə dediyi sözlərdə, tarixi vəsiyyətlərində axtarmalıyıq.

**"525-ci qəzet".-**2009.-12 dekabr.-S.230.-S.9.

# MÜTƏRƏQQİ TƏHSİL STRATEGİYASININ BANİSİ

**Sevinc BUDAQOVA,**
tarix elmləri namizədi, 46 saylı məktəbin direktoru

**Ümummilli lider Heydər Əliyev fəaliyyətinin bütün dövrlərində elm və təhsilə yüksək qayğı ilə yanaşmışdır**

Təhsil millətin gələcəyi, müstəqil dövlətin təməlidir. Hər bir xalq inkişaf yolunu məhz malik olduğu elmi-intellektual potensialla müəyyənləşdirərək dünya miqyasında layiqli yer tutmaq imkanı qazanır. Bəşər tarixində silinməz iz qoymuş böyük şəxsiyyətlərin elmə və təhsilə münasibəti, bu sahələrin inkişafına verdikləri töhfələr onların əbədiyaşarlığını təmin edən başlıca amillərdən biridir. Müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyev də idarəçiliyinin bütün mərhələlərində elm və təhsilin inkişafına xüsusi qayğı ilə yanaşaraq, ilk növbədə, xalqımızın intellektual gələcəyini düşünmüşdür. Elmi-intellektual sahədə qazanılan nailiyyətləri dövlət quruculuğu prosesinin vacib şərti və etibarlı təminatı hesab edən ulu öndərimiz milli təhsilimizin mütərəqqi prinsiplər əsasında inkişafı naminə bütün zəruri tədbirləri həyata keçirmişdir.

Sivil dünya gerçəklikləri ilə çuğlaşan fəal maarifçilik kursunun həyata keçirilməsi, mütərəqqi yeniliklərin tətbiq olunması yolu ilə milli təhsil sisteminin müasirləşdirilməsi, dövlət idarəçiliyi üçün yüksək mənəvi-əxlaqi keyfiyyətləri, intellekti, savadı ilə fərqlənən ixtisaslı kadrların yetişdirilməsi məsələləri ulu öndər Heydər Əliyevin fəaliyyətinin bütün mərhələlərində prioritet məsələlərdən olmuşdur.

Cəmiyyətin tərəqqisinin, elm, mədəniyyət və mənəviyyatın inkişafının ən qüdrətli vasitəsi rolunu oynayan elm və təhsilə qayğının artırılması, bu işə dövlət siyasətinin üstün istiqaməti kimi yanaşılması Heydər Əliyevin rəhbər və vətəndaş epoxasının ümdə qayəsini ifadə edən önəmli cəhət kimi bu gün də böyük rəğbətlə xatırlanır. Məhz bu amil ötən əsrin 70-ci illərindən başlayaraq, Heydər Əliyev epoxasının mənəvi yüksəliş tarixinin inkaredilməz gerçəkliyinə çevrilmişdir. Böyük strateq mövcud ideologiyanın qəlibləri çərçivəsində belə, Azərbaycanda milli təhsil sisteminin sıxışdırılmasına yol verməmiş, əksinə, onu yüksəltmək yolunda bütün imkanlardan maksimum dərəcədə istifadə etməyi bacarmışdır. Heydər Əliyev dühasının böyüklüyü də məhz ondadır ki, o, bütün fəaliyyəti boyu bu sahələrə diqqət və qayğısını əsirgəməmiş, cəmiyyətdə yüksək bilikli, intellektual və elitar təbəqənin formalaşmasına çalışmışdır. Təsadüfi deyildir ki, 1969-1982-ci illər həm də Azərbaycan elminin, təhsilinin intibah dövrü kimi xatırlanır. Ulu öndərin şəxsi təşəbbüskarlığı, qətiyyəti və iradəsi nəticəsində həmin illərdə 700-dən artıq məktəb binası tikilərək istifadəyə verilmişdir. Bu illərdə respublikada ali təhsil müəssisələrinin sayı 12-dən 17-yə, burada təhsil alan tələbələrin sayı isə 70 mindən 100 minə çatmışdır.

Ümummilli lider Heydər Əliyevin 70-ci illərdə minlərlə azərbaycanlı gəncin respublikamızın hüdudlarından kənarda yüksək ali təhsil almasına, ixtisaslı kadr kimi yetişməsinə hər cür kömək göstərməsi də onun xeyirxahlığının bariz ifadəsidir. Respublikaya birinci rəhbərliyi dövründə 10 mindən artıq gənci keçmiş SSRİ respublikalarının ali məktəblərinə təhsil almağa göndərən Heydər Əliyev yüksək ixtisaslı, vicdanlı və peşəkar kadrların hazırlanması, dövlət idarəçiliyi sisteminin sağlamlaşdırılması məsələlərinə ciddi fikir vermişdir. Əslində, ulu öndər bu nəcib niyyəti hələ Dövlət Təhlükəsizlik Komitəsində (DTK) çalışdığı illərdə qarşıya məqsəd qoymuş, müəyyən risklərə rəğmən, kadrların milliləşdirilməsi vacibliyini irəli çəkmişdir. DTK-ya uzun onilliklər qeyri-azərbaycanlının rəhbərlik etməsi ilə bağlı qəlibləşən stereotipləri öz nüfuzu və bacarığı hesabına dağıdan Heydər Əliyev həm də o dövrdə "beynəlmiləlçilik" pərdəsi altında milli dəyərlərin aşınması prosesinin qarşısını almışdır. Ölkənin ən böyük nəzarət orqanı olan və milli özünüdərkin bütün rüşeymlərinə qarşı amansız mübarizə aparan qurum qısa müddət ərzində mahiyyətcə yeniləşmiş və fəaliyyətində liberal çalarlar artmışdı. Qeyri-azərbaycanlıların ağalıq etdiyi DTK-da az bir vaxt ərzində şəxsi heyət azərbaycanlıların xeyrinə dəyişdirilmiş, bu orqan demək olar, azərbaycanlılaşdırılmışdı.

Heydər Əliyev Azərbaycanda bir sıra yeni ixtisaslar üzrə – informasiya texnologiyaları, beynəlxalq hüquq, beynəlxalq münasibətlər, aviasiya və s. – mütəxəssis hazırlayan ali məktəblərin olmadığını nəzərə alaraq minlərlə azərbaycanlı gəncin Moskva, Kiyev, Minsk və başqa şəhərlərdəki nüfuzlu ali məktəblərə göndərilməsini təmin etmişdir. Ümummilli lider bu ali məktəblərdə müsabiqədənkənar oxumağa gedən gənclərin sayının ildən-ilə artırılmasına Moskvadan böyük inadkarlıqla icazə alır, onların təhsilinin ümumittifaq büdcəsindən maliyyələşdirilməsinə nail olur, həmin gənclərin məişət şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirirdi. Ulu öndər həmin illərdə müttəfiq respublikalarda, əsasən də Rusiyada təhsil almaq hüququ qazanan gənclərin yüksək səviyyədə yola salınması və qarşılanmasını da müsbət ənənə kimi formalaşdırmışdı. Böyük strateq sonralar qeyd edirdi ki, 70-80-ci illərdə ideologiyadan, ictimai-siyasi, iqtisadi sistemdən asılı olmayaraq

Azərbaycan xalqının böyük bir nəsli təhsil almış, böyümüş, yüksək səviyyəyə çatmış, böyük elm və mədəniyyətə sahib olmuşdur.

Ulu öndər Heydər Əliyev milli təhsilin inkişafı və onun qabaqcıl dünya dövlətlərinin təhsil sisteminə inteqrasiyasını da ciddi vəzifə kimi müəyyənləşdirmiş, bu sahədə aparılacaq islahatların mahiyyətini açıqlamışdır. Ümummilli liderin irəli sürdüyü təhsil konsepsiyasının əsas qayəsini müstəqilliyin daha da möhkəmləndirilməsi, demokratik və hüquqi cəmiyyət quruculuğu prosesinin sürətlə həyata keçirilməsi, dövlətin iqtisadi potensialının gücləndirilməsi kimi ümdə prinsiplər təşkil etmişdir. Heydər Əliyev insan hüquq və azadlıqlarının təminatı baxımından vətəndaşların təhsil hüququnun reallaşdırılmasına böyük önəm verdiyini çıxışlarında hər zaman xüsusi vurğulamışdır. Təhsil hüququ 1995-ci il 12 noyabrda ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş, Azərbaycan Konstitusiyasında hər bir vətəndaşın vacib hüquqlarından biri kimi elan olunmuşdur. Dövlət vətəndaşların pulsuz icbari, ümumi və orta təhsil almaq hüququnu təmin edir. Konstitusiyanın bu müddəası Azərbaycan Respublikasında təhsil fəaliyyətinin əsas prinsipidir.

Hər bir mütərəqqi islahatın uğuru, şübhəsiz, onun ictimai şüurla nə dərəcədə səsləşməsi, cəmiyyət tərəfindən qəbul olunub-olunmamasından bilavasitə asılıdır. Bu gerçəklikdən çıxış edən ulu öndər Heydər Əliyev ilk gündən milli təhsil sistemində islahatların təkamül yolu ilə aparılması tərəfdarı kimi çıxış etmiş, bu mövzuda ictimai müzakirələrin açılmasına nail olmuşdur. “Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri, tədrici dəyişikliklər xarakteri daşıyır…Təhsil qanunu elə bir qanundur ki, təhsil islahatları elə islahatlardır ki, iqtisadiyyatdan, maliyyədən, başqa sahələrdən fərqli olaraq, bunda bütün cəmiyyətin iştirakı lazımdır” – deyən ulu öndər Heydər Əliyev bu məsələyə böyük həssaslıqla yanaşdığını nümayiş etdirmişdir.

Heydər Əliyevin 30 mart 1998-ci il tarixdə imzaladığı “Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası haqqında” sərəncamında müstəqil Azərbaycanın təhsil sistemində beynəlxalq standartlara uyğun islahatların həyata keçirilməsi, təhsilin inkişafı və onun maddi-texniki bazasının möhkəmləndirilməsi, Avropa təhsil məkanına inteqrasiyanın təmin edilməsi kimi mühüm vəzifələr önə çəkilmişdir. 15 iyun 1999-cu il tarixdə ulu öndər tərəfindən təsdiq olunmuş “Azərbaycan Respublikasında Təhsil İslahat Proqramı”nın əsas mahiyyətini isə təhsil sistemində islahatların təkamül yolu ilə, mərhələlərlə aparılması, tarixən formalaşmış zəngin, mütərəqqi ənənələrin, təcrübənin qorunub saxlanılması, dünya təhsil sisteminin Azərbaycanın milli xüsusiyyətləri ilə çuğlaşan prinsiplərinin tətbiqi məsələləri təşkil edir. İslahat proqramının həyata keçirilməsi nəticəsində təhsilin məzmunu yeniləşdirilmiş, yeni proqramlar və dərsliklər hazırlanmış, ayrı-ayrı təhsil sahələri və fənlər üzrə standartların hazırlanması istiqamətində ciddi iş aparılmışdır.

Ulu öndər Heydər Əliyevin “Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında” 13 iyun 2003-cü il tarixli fərmanı isə təhsil sisteminin əsaslı şəkildə təkmilləşdirilməsinə, idarəetmənin müasir prinsiplər üzrə təşkilinə, onun beynəlxalq standartlara uyğunlaşdırılmasına və dünya təhsil sisteminə inteqrasiyasına zəmin yaratmışdır. Bu fərmanla təhsil müəssisələrinin şəbəkəsi optimallaşdırılmış, bir sıra universitetlərə muxtariyyət statusu verilmiş, ölkəmizdə müəllim hazırlığının keyfiyyətinin yüksəldilməsi məqsədilə Azərbaycan Müəllimlər İnstitutu və onun 12 filialı yaradılmışdır.

Dövlət başçısı daim vurğulayır ki, xalqımızın gələcək inkişafı təbii sərvətlərlə deyil, məhz intellektual inkişafla bağlıdır və elmə qoyulan sərmayə xalqın intellektual sabahına xidmət edir. Ölkədə həyata keçirilən yeni neft strategiyasının, sosial-iqtisadi islahatların uğurları davamlı və tarazlı inkişaf baxımından zəruri olan zəngin intellektual resursların formalaşmasına, insan kapitalının formalaşmasına xidmət etməlidir. “İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, onlarda uğurun əsas səbəbi neft-qaz deyil, bilikdir, savaddır, müasirlikdir. Bizdə isə həm bu olmalıdır, həm də əlbəttə ki, təbii ehtiyatlar da var. Bu amillərin sintezi Azərbaycanı çox qabaqcıl, müasir ölkəyə çevirəcəkdir” – deyən dövlət başçısının müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyasının mahiyyətində dayanıqlı və sabit inkişaf edən iqtisadi sistemin formalaşdırılması məqsədi dayanır. Bu siyasət neftdən asılılığı azaltmaqla ölkədəki dinamik iqtisadi inkişaf tempini sabit saxlamağa imkan verən fundamental əsasların yaradılmasını nəzərdə tutur.

Müqayisə üçün bildirək ki, 2003-cü ildə təhsilə cəmi 243 milyon, 2004-cü ildə 308 milyon, 2005-ci ildə 378 milyon, 2006-cı ildə 498 milyon, 2007-ci ildə 758 milyon manat ayrılmışdısa, 2008-ci ildə bu rəqəm 1,1 manata, 2009-cu ildə 1,2 milyard manata yüksəlmişdir. 2010-cu ilin dövlət büdcəsində isə təhsil xərcləri üçün 1 milyard 276,7 milyon manat vəsait nəzərdə tutulmuşdur və bu da 2009-cu illə müqayisədə 0,3 faiz çoxdur.

Azərbaycan Prezidentinin 4 sentyabr 2007-ci il tarixli “Ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında” Sərəncamı da təhsil işçilərinin əməyinə verilən yüksək qiymətin təzahürü sayıla bilər. Belə bir sərəncamın imzalanması gənc nəslə fundamental biliklərin əsaslarını yeni üsullarla aşılayan, Azərbaycan dili, ədəbiyyatı və tarixinin, xarici dillərin tədrisində nailiyyətlər qazanan, informasiya texnologiyalarının mənimsədilməsi, şagirdlərin vətənpərvərlik ruhunda tərbiyəsi işində yüksək

nəticələr əldə edən ümumtəhsil məktəblərinin və müəllimlərin fəaliyyətini qiymətləndirmək məqsədi daşıyır. Sərəncama əsasən, müasir təlim texnologiyaları və üsulları üzrə kompleks tədbirlər (innovativ təhsil proqramlarını) həyata keçirən, keyfiyyət göstəriciləri ilə fərqlənən ümumtəhsil məktəbləri üçün 2007-2008-ci tədris ilindən başlayaraq hər tədris ilində bir dəfə olmaqla müsabiqə əsasında 50 ən yaxşı ümumtəhsil məktəbinin hər birinə innovativ təhsil üsullarının inkişaf etdirilməsi üçün 10 min manat və 100 ən yaxşı müəllimin hər birinə 5 min manat məbləğində birdəfəlik mükafat təsis olunmuşdur.

Avroatlantik məkana inteqrasiya kursu seçməklə dinamik inkişaf yoluna qədəm qoymuş Azərbaycanda təhsilin müasirləşdirilməsi və problemlərinin mərhələli həlli, inkişaf etmiş dövlətlərin bu sahədəki zəngin təcrübəsinin dərindən mənimsənilməsi və “Boloniya prosesi”nə keçidin təmini, ümumtəhsil məktəblərində tədris prosesinin maddi-texniki bazasının yaxşılaşdırılması, kompyuter və informasiya texnologiyalarının geniş tətbiqi, yeni məktəblərin inşası kimi fundamental problemlərin həlli də son 6 ildə dövlət başçısının xüsusi diqqət mərkəzində olmuşdur. Dövlət başçısı ötən illərdə imzaladığı çoxsaylı mühüm fərman və sərəncamlarla, dövlət proqramları ilə Azərbaycan elminin və təhsilinin hamisi olduğunu praktik surətdə təsdiqləmişdir.

Təhsil bilik, müasirlik, savad, gələcəyə açılmış qapılar deməkdir. Prezident İlham Əliyev sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində Azərbaycan xalqının intellektual gələcəyini təmin etməyin yeganə yolunu məhz məktəblərin ən müasir tələblər səviyyəsinə çatdırılmasında görür. Görülən işlər deməyə əsas verir ki, yaxın illərdə Azərbaycanda təhsil sahəsində özünü göstərən qlobal problemlər əsaslı surətdə aradan qalxacaq, milli təhsilimizin keyfiyyəti daha da yüksələcəkdir.

**“Şərq”.-**2009.-12 dekabr.-N.230.-S.7.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN İRSİ MİLLİ SƏRVƏTİMİZDİR

**Mübariz Qurbanlı**
Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü

Müasir dünyamızda hər bir dövlətin inkişaf yolu həmin ərazidə yaşayan xalqların öz qarşısına qoyduğu vəzifələrlə üzvi surətdə bağlıdır. Bu gün dünyada təqribən 200-ə yaxın irili-xırdalı dövlət var. Amma bu dövlətlərin inkişaf səviyyələri heç də eyni deyildir. Xüsusən iqtisadi, siyasi və demokratik inkişaf baxımından onlar bir-birlərindən əhəmiyyətli dərəcədə fərqlənirlər. Yüksək inkişaf səviyyəsinə çatmış ölkələrlə yoxsulluq içərisində olan dövlətlər arasında fərqin nə qədər böyük olduğunu sosial-iqtisadi rəqəmlərdə, ictimai-siyasi sabitlikdə və s. amillərdən görmək olur. İnkişaf etmiş ölkələr bütövlükdə hər bir sahə üzrə digər ölkələrdən irəli gedirlər. Bəs bu dövlətlərin iqtisadi, siyasi, mənəvi və digər göstəricilər baxımından birinin digərini üstələməsinin kökündə nə dayanır? İnkişafdakı bu fərqlərin səbəbləri haqqında son illərdə xeyli tədqiqat işləri, araşdırmalar aparılıb və müxtəlif nəzəriyyələr yaranıb. Əlbəttə, bu nəzəriyyələri təhlil etməyə, yenidən onlara qayıtmağa ehtiyac yoxdur. Əsas məsələ odur ki, yüksək inkişaf edən dövlətlərin tarixinə nəzər saldıqda görürük ki, orada cəmiyyət vahid bir məqsəd ətrafında sıx birləşib.

Dünyada mövcud olan xalqların sayı, təqribi hesablamalara görə, 8 mindən yuxarıdır. Amma öncə də qeyd etdiyimiz kimi, müstəqil dövlətlərin sayı 200-ə qədərdir və bu dövlətlərin bir çoxunun müstəqillik əldə etməsi, formalaşması əsasən XX əsrin ortalarından, İkinci dünya müharibəsinin başa çatmasından sonra baş verib. İkinci dünya müharibəsinin qurtarmasından sonra müstəmləkə sistemlərinin dağılması nəticə etibarilə Asiya, Afrika, Latın Amerikasında yeni dövlətlərin meydana gəlməsi ilə müşayiət olundu. Aydındır ki, yeni yaranmış dövlətlərin hər biri sürətlə inkişaf etmək, zəngin dövlətlərə çatmaq xəttini götürür. Bu istək müasir dövrümüzdə də qalmaqdadır. İstənilən millət, xalq yaratdığı dövlətin dünya siyasətində layiqli yer tutması, mühüm rol oynaması arzusu ilə yaşayır. XX əsrin tarixinə nəzər saldıqda yeni yaranan bu ölkələrdə milli ideyanın müəyyənləşdirilməsi baxımından sovet-kommunist ideologiyasına meyilliliklə Qərb demokratiyasına meyillilik arasında dərin bir mübarizə getdiyini görərik. Yəni, yeni müstəqillik əldə etmiş dövlət ya sovet sosialist sisteminin təsiri altına düşərək sosialist inkişaf yoluna qədəm qoyduğunu bəyan edirdi, yaxud da ABŞ başda olmaqla Qərb demokratiyasının təsiri dairəsinə girərək liberal, azad bazar iqtisadiyyatı və demokratik prinsipləri əsas götürməklə inkişaf yolunu seçirdi. Bəzi ölkələrdə üçüncü yol haqqında da fikirlər səsləndirilirdi. Amma XX əsrin sonlarına doğru sovet sosialist sisteminin süquta uğraması ideoloji seçim imkanlarını faktiki olaraq bir istiqamətə yönəltdi. Bu, ümumbəşəri dəyərlərə söykənən Qərb demokratiyasına yönəlik inkişaf yolu idi. Bununla yanaşı, bəzi ölkələrdə özünəməxsus inkişaf yolu seçməsi barədə fikirlərin olduğunu görməkdəyik. Amma, fakt budur ki, indi əksər ölkələr Qərb modelinə üstünlük verir.

Dünyamıza nəzər salsaq görərik ki, inkişaf edən ölkələrin hər biri hansısa prinsiplərə söykənərək bugünkü səviyyəyə gəlib çatıb. Məsələn, Hindistan Mahatma Qandinin müəyyən etdiyi prinsiplərə söykənərək inkişaf edir. ABŞ bu ölkənin bani atalarının, İstiqlaliyyət Bəyannaməsini, Konstitusiyasını ortaya qoyanların müəyyən etdiyi xətti əsas götürür. ABŞ Konstitusiyası Amerika dövlətinin və xalqının söykəndiyi prinsipləri özündə əks etdirir, eyni zamanda bu ölkə yaranarkən ortada olan ənənələr, irəli sürülən prinsiplər hələ də ana prinsiplər olaraq qalmaqdadır. Baxmayaraq ki, Böyük Britaniya konstitusiyalı monarxiyadır, bu ölkə də tarixdən gələn ideoloji prinsiplərə söykənir. Qardaş Türkiyə Respublikası Atatürkçülük prinsiplərinə söykənir. Türkiyədə nə qədər partiyalararası siyasi dartışma, hakimiyyət dəyişikliyi və s. baş versə də, Atatürkün müəyyən etdiyi prinsiplər davamlı olaraq yaşamaqdadır.

Azərbaycanın milli ideologiyasının və dövlətçiliyinin təməl prinsiplərinin müəyyən edilməsi məsələsi ölkəmiz 1991-ci il oktyabr ayının 18-də özünün dövlət müstəqilliyini bərpa etdikdən sonra çox ciddi diskussiya mövzusu olmuşdur. Müstəqilliyinə yenicə qovuşmuş dövlətimizin və xalqımızın gələcək inkişafı ilə əlaqədar müxtəlif ideoloji təkliflər səsləndirilirdi. Düzdür, ölkəmiz dövlət müstəqilliyinə qovuşarkən XX əsrin əvvəllərində mövcud olmuş Xalq Cümhuriyyətinin müəyyən ənənələri var idi. Amma Xalq Cümhuriyyətinin az müddətdə mövcud olması və müəyyən prinsipləri ortaya qoya bilməməsi XX əsrin 90-cı illərinin əvvəllərində milli ideya axtarışı baxımından Azərbaycanda bir boşluğun olduğunu ortaya qoydu. Turançılığa istinad etmək, dinə söykənmək və digər prinsipləri qəbul etmək təklifi ilə çıxış edənlər var idi. Amma bu təkliflərin hər biri yarımçıq idi, nə isə çatışmırdı. Hansısa elementin çatışmaması və yarımçıq tezis inkişafa, ideoloji xəttə əngəl olurdu. Bu prinsipləri tamamlamaq, inkişaf etdirmək, möhkəmləndirmək və qətiləşdirmək lazım idi. Məhz ümummilli lider Heydər Əliyev bunu qətiləşdirdi. O, nəinki Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyini təmin etdi, eyni zamanda millətimizin və dövlətimizin ideoloji xəttini, söykənəcəyi təməl prinsipləri irs olaraq müəyyənləşdirdi.

Ötən əsrin 90-cı illərinin əvvəllərində cəmiyyətdə belə müzakirələr gedirdi ki, milli ideyaya, milləti birləşdirəcək hansısa prinsiplərə söykənmək lazımdırmı? Bu cür müzakirələrə də ulu öndər Heydər Əliyev son qoydu. Heydər Əliyev göstərdi ki, bəli, Azərbaycan xalqını birləşdirən müəyyən prinsiplərə, ideoloji xəttə ehtiyac var. Xalqımız bu ideoloji prinsiplərə söykənməlidir.

Bəzən ideologiya, ideoloji prinsip dedikdə sovet dövründəki ideologiya ilə milli ideyalar qarışdırılır. Sovet dövründə olan kommunist ideologiyası tamam fərqli məqsədə xidmət edirdi. Amma xalqın vəzifəsi və məqsədi var. Bu məqsəd və vəzifə bütün xalqı özündə birləşdirəcək amilləri ehtiva edir. Bütün xalqı özündə birləşdirən amillər bütövlükdə millət tərəfindən qəbul edilən prinsiplərdir.

Heydər Əliyevin xalqımıza bəxş etdiyi əvəzsiz mənəvi-siyasi xəzinə həmin dövrdə Azərbaycan xalqının qarşısında duran əsas missiyalardan birinin – milli ideyanın müəyyənləşdirilməsi baxımından olduqca əhəmiyyətli rol oynadı. Heydər Əliyev «Azərbaycanın inkişaf yolu hayanadır» sualına belə cavab vermişdi: «Azərbaycanın inkişaf yolu Qərbədir». «Məgər Günəş Qərbdən çıxır» sualına isə Heydər Əliyev böyük müdrikliklə belə cavab vermişdi: «Bizim üzümüz Qərbədir ki, yenidən Şərqdən doğaq». Ulu öndərin bu sözlərində həqiqətən də çox böyük məna var. Heydər Əliyev Şərqlə Qərbin, böyük sivilizasiyaların qovşağında yerləşən Azərbaycanın Şərqin dəyərlərini, zəngin mədəniyyətini müasir dövrümüzdə yüksək inkişafa nail olmuş Qərbin texnologiyası, ümumbəşəri demokratik dəyərləri ilə uzlaşdırmaqla, bu dəyərlərdən qidalanmaqla inkişafımızın mümkünlüyünü qeyd edirdi. Həqiqətən də Azərbaycan müxtəlif mədəniyyətlərin qovşağında olduğuna görə xalqımız öz yolunu seçərkən Şərqlə Qərbin qarşılıqlı münasibətlərini nəzərə almalıdır. Tarixən keçdiyimiz yol və coğrafi vəziyyətimiz bunu zəruri edir.

Ümummilli lider Heydər Əliyevin məşhur bir kəlamı həmişə xalqımız üçün örnəkdir. O deyirdi: «Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir». Xalqımız əsrlər boyu həsrətində olduğu müstəqilliyə nail olduqdan sonra həmin müstəqilliyi qoruyub saxlamaq, əbədiliyini dönməz etmək, möhkəmləndirmək, Azərbaycanı dünyanın müxtəlif ölkələrində məskunlaşmış 50 milyon azərbaycanlı üçün bir mayaka çevirmək vacib bir vəzifə idi. Bu vəzifəni həyata keçirərkən, təbii ki, millətin vahid ideya ətrafında birləşdirilməsi zərurəti yaranmışdı. Ümummilli lider Heydər Əliyev milli ideyanın yaranması, xalqa çatdırılması istiqamətində xalqımıza çox böyük, əhəmiyyətli elmi-nəzəri bir irs ərməğan etdi. Həmin irs üzərində bu gün müstəqil Azərbaycan dövləti sürətlə inkişaf etməkdədir. Ulu öndərin bizə qoyduğu bu irsin öyrənilməsi və tədqiqi baxımından son illərdə çox böyük işlər görülmüş, nailiyyətlər əldə edilmişdir.

Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi Azərbaycan dövlətinin ideya prinsipləri yalnız bugünkü Azərbaycan üçün deyil, gələcəkdə ölkəmizin inkişafı üçün də başlıca mənbə rolunu oynayacaqdır. Ümummilli liderimiz Azərbaycanın milli ideologiyasından, milli baxışlarından danışarkən qeyd etmişdir ki, Yeni Azərbaycan Partiyasının proqramında əks etdirilən prinsiplər, əslində, Azərbaycan xalqının, dövlətimizin söykəndiyi ana prinsiplərdir. Heydər Əliyev bu prinsipləri müəyyən edərkən Azərbaycan xalqının keçdiyi tarixi yolu, milli-mənəvi dəyərləri, eyni zamanda perspektivdə qarşımızda duran vəzifələri nəzərə almışdır. Ümummilli liderimiz Azərbaycanın söykəndiyi dəyərlərdən danışarkən deyirdi: «Yeni Azərbaycan Partiyasının demokratik, hüquqi dövlət qurmaq istiqamətində irəli sürdüyü müddəalar Azərbaycan xalqının söykəndiyi əsas prinsiplər hesab olunmalıdır». Bu prinsiplər 1992-ci ildə YAP-ın təsis konfransında qəbul edilən proqramda öz əksini tapıb. Bu proqramda Heydər Əliyev Azərbaycan dövlətçiliyinin söykəndiyi başlıca prinsipləri qeyd edib.

Bu prinsiplər içərisində ən mühüm yerlərdən birini dövlətçilik prinsipi tutur. Dövlətin mövcudluğu müəyyən sərhədlər, müəyyən iqtisadi-coğrafi amillərlə bağlı olmaqla yanaşı, eyni zamanda ənənələrə də söykənir. Azərbaycan xalqının məskunlaşdığı və yayıldığı bu ərazidə tarixən yaratdığı çoxlu dövlətləri olubdur. Xalqımızın tarixdə özümüzəməxsus imzası var, yaratdığı dövlətlər Yaxın və Orta Şərqdə çox ciddi tarixi izlər qoyub. Dövlətçilik yaşadığımız tarixi dövrün reallıqları ilə tarixi keçmişimiz arasındakı əlaqələrin bərpa olunması və bunun hər bir formada insanlara çatdırılmasıdır. Dövlətçilik dedikdə ilk növbədə tarixdən bizə ötürülən, nəsillərlə əxz etdiyimiz, qazandığımız həmin dövlət prinsiplərinin saxlanılması, qorunması yada düşür. Xalq üçün birinci onun dövlətidir. Əgər dövlət yoxdursa, hansı ideologiya və prinsipdən danışmaq olar?

Dövlətin qorunmasını, müstəqilliyin möhkəmləndirilməsini başlıca amil hesab edən Ulu Öndər deyirdi: «Bu milli ideologiya nədən ibarətdir? Birinci, dövlətçilik. Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır, Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə hər bir vətəndaş vətənpərvərlik hissləri ilə yaşamalıdır və bizim partiyamız, bütün dövlət orqanları, bütün təbliğatımız Azərbaycanda dövlətçiliyi inkişaf etdirmək üçün hər bir vətəndaşda milli vətənpərvərlik hisslərini yaratmalıdır. Milli vətənpərvərlik hissləri hər bir vətəndaşda o qədər güclü olmalıdır ki, hər bir vətəndaş milli mənafeyi öz şəxsi mənafeyindən, öz şəxsi yaşayışından, öz şəxsi həyatından – hər şeydən üstün tutsun».

Heydər Əliyev dəfələrlə qeyd etmişdir ki, müstəqilliyi əldə etmək qədər də onu qoruyub saxlamaq, əbədiliyini dönməz etmək çətindir. Bu baxımdan dövlətçiliyimizə, dövlətçiliyimizin möhkəmləndirilməsinə Heydər Əliyevin verdiyi töhfələr əvəzsizdir. Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışı milli müstəqil dövlətimizin qorunması və möhkəmləndirilməsi baxımından həlledici rol oynadı. Heydər Əliyev hələ 1969-1982-ci illərdə rəhbər olduğu dövrlərdə Azərbaycan dövlətçiliyinin gələcək müstəqilliyinin siyasi, iqtisadi əsaslarını yarada bilmişdi. Bu baza əsasında məhz Azərbaycan xalqı müstəqillik əldə etdikdən sonra Ermənistanın təcavüzünə baxmayaraq, öz suverenliyini qoruyub saxlaya bilmiş və inkişaf yoluna qədəm qoymuşdur. Heydər Əliyev Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi üçün çox ciddi sosial-iqtisadi, siyasi islahatlar həyata keçirmiş, əhəmiyyətli addımlar atmışdır. Bu əhəmiyyətli addımlar özünü ilk növbədə onda göstərdi ki, Azərbaycanda hakimiyyətdə səriştəsiz dairələrin olduğu 1991-1993-cü illərdə mövcud olan xaos, anarxiya aradan qaldırıldı, silah gücünə, müxtəlif təxribatlar vasitəsilə hakimiyyət dəyişikliyinə nail olmaq praktikasına son qoyuldu. Ən əsası dövlət və xalq arasında möhkəm birlik yaradıldı. Dövlətin möhkəmliyi üçün qanunun aliliyi olmalıdır. Heydər Əliyev irəli sürdüyü dövlətin təməl prinsiplərindən biri sayılan qanunun aliliyinin ölkəmizdə təmininə nail oldu. Dövlət varsa, qanun olmalıdır. Əgər qanun yoxdursa, dövlət mövcud olmayacaq. Dövlət qanuna söykənməlidir. Qanunçuluq prinsipi bir tərəfdən qanunun aliliyidir, digər tərəfdən isə zamanın tələbinə və reallığa uyğun olaraq yeni qanunların yaradılması və onların işlək olmasına ictimai nəzarətin gücləndirilməsidir. Heydər Əliyev dəfələrlə bildirmişdir ki, dövlət xalqa xidmət etməlidir, dövlətin xalqa xidmət etməsi üçün dövlət məmurları, dövləti idarə edən şəxslər daim xalqla təmasda olmalıdır. Yaxşı hökumət o hökumətdir ki, nəinki insanları xoşbəxt etmək istəyir, həm də buna hansı yolla nail olmağı bilir və bunu həyata keçirməyə qadirdir. Bu, ümummilli liderimizin irəli sürdüyü qanunçuluq prinsipindəki mühüm fikirlərdən biridir. Prezident İlham Əliyev qanunçuluğun gələcək inkişaf üçün ən önəmli şərtlərdən biri olduğunu bildirir: «Azərbaycanda qayda-qanun var və hər bir vətəndaş qanunlara tabe olmalıdır. Azərbaycanda sabitliyin qorunması gələcək inkişafımız üçün ən önəmli şərtlərdən biridir».

Dövlətin söykəndiyi qanun onun idarə edilməsinin əsas xətlərini və prinsiplərini müəyyən edir. Bu qanunlar olmasa, idarəçilik olmayacaq. İdarəsizlik isə dövlətin gələcəyini təhlükə altına salar. Qanunçuluq Heydər Əliyevin dövlətçiliyə, dövlətin idarə olunmasına, dövlətin təməl prinsiplərinə verdiyi ən böyük töhfələrdən biridir. Qanunçuluğa söykənən cəmiyyətdə vətəndaşların hüquq və azadlıqlarının qorunması başlıca yerlərdən birini tutur. Prezident İlham Əliyev bununla bağlı demişdir: «Biz güclü, demokratik cəmiyyət qurmaq əzmindəyik. Bu cəmiyyətdə hər bir vətəndaş bütün haqlardan və azadlıqlardan istifadə etməli və onun bütün hüquqları və azadlıqları qorunmalıdır». Bu gün Prezident İlham Əliyev həyata keçirdiyi praqmatik və çevik siyasət nəticəsində Azərbaycan cəmiyyətində vətəndaşların hüquqlarının hərtərəfli qorunması istiqamətində mühüm irəliləyişlərə nail olunmuşdur. Heydər Əliyevin müəyyən etdiyi qanunçuluq prinsipinin əsasları onun müəllifi olduğu Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır.

Heydər Əliyevin irəli sürdüyü digər bir prinsip azərbaycançılıqdır. Azərbaycançılıq Azərbaycan xalqını birləşdirən ən mühüm ideya, vətənə sevgi, məhəbbətdir. Azərbaycançılıq, eyni zamanda Azərbaycanda yaşayan bütün xalqların vahid bir ideya ətrafında birləşməsi deməkdir. Azərbaycançılıq dövlətin möhkəmləndirilməsinə çalışmaq, Azərbaycanın inkişafı naminə harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının fəaliyyət göstərməsi, bu yöndə öz töhfəsini verməsi deməkdir. Azərbaycançılığı Azərbaycanda ictimai dövriyyəyə gətirən və onun yerini möhkəmləndirən Heydər Əliyevdir. Ümummilli liderimiz çox haqlı olaraq deyirdi ki, azərbaycançılıq söykəndiyimiz təməl prinsiplərin əsasıdır: «Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətindən qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq».

Elmi-nəzəri tədqiqatlarının birində akademik Ramiz Mehdiyev yazır: «Azərbaycançılıq ideologiyasında vahid polietnik millətin Azərbaycan dövlətçiliyinin yaradılmasına dair maraqlarının ümumiliyi, demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizəsinin məqsədləri öz əksini tapmışdır. İdeologiya kimi azərbaycançılıq müstəqil Azərbaycanın fəlsəfi-sosial doktrinasının sosiomədəni və etnik-geosiyasi cəhətlərini özündə birləşdirmişdir. O, qarşılıqlı dəstək, əməkdaşlıq və bərabərliyin mühüm əsasını təşkil edir».

Heydər Əliyev azərbaycançılıq dedikdə, Azərbaycan xalqının öz milli dəyərlərinə söykənməklə bərabər, ümumbəşəri dəyərləri də qəbul etməsi və onlardan yararlanmasını nəzərdə tuturdu. Heydər Əliyev azərbaycançılıq ideologiyasının nəzəri cəhətdən elan edilməsi ilə məsələni bitmiş hesab etməmiş və azərbaycançılığın dünyada olan bütün azərbaycanlılar üçün birləşdirici bir ideologiyaya çevrilməsi üçün xeyli tədbirlər həyata keçirmişdir. Bu baxımdan dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi və burada həmin ideyanın bütün dünyada yaşayan azərbaycanlılara çatdırılması olduqca əhəmiyyətli rol oynamışdır. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması, Heydər Əliyevin xarici ölkələrə

səfərləri zamanı azərbaycanlılarla görüşməsi, soydaşlarımızla əlaqələrin qurulması, azərbaycançılıq ideyası ətrafında Azərbaycan xalqının daha sıx birləşməsinə təkan verən amillər olmuşdur.

Dünyada yaşayan azərbaycanlıların bir-biri ilə əlaqə saxlaması məsələsi Heydər Əliyevin Azərbaycanda hələ sovet dövründə rəhbərliyi zamanında diqqət mərkəzində idi. Hələ o zaman xaricdə yaşayan azərbaycanlılarla əlaqələrin yaradılması üçün dostluq və mədəni əlaqələr cəmiyyətləri, «Vətən» cəmiyyəti fəaliyyət göstərirdi. Bu işlər hələ o dövrdə də Heydər Əliyevin diqqətində olmuşdur. Azərbaycançılıq ideyasının Azərbaycan xalqına çatdırılması Heydər Əliyevin fəaliyyətində həlledici yerlərdən birini tutmuşdur.

Azərbaycançılıq ideyası bu gün də Azərbaycan xalqının diqqət mərkəzindədir və Prezident İlham Əliyev Azərbaycan xalqının azərbaycançılıq ideyası ətrafında güclənməsi, birləşməsi yönümündə çoxşaxəli və geniş fəaliyyət göstərir.

Bu gün azərbaycançılıq dünyada olan 50 milyon azərbaycanlını vahid ideya çətiri ətrafında birləşdirir. Hələ 1992-ci ildə YAP-ın proqramı qəbul edilərkən Heydər Əliyev azərbaycançılığı birinci məram kimi göstərdi. Azərbaycançılıq bu gün bütün dünya azərbaycanlılarının, Azərbaycanda yaşayan bütün xalqların və Azərbaycan dövlətinin söykəndiyi təməl prinsipdir. Bu məsələ ilə bağlı danışarkən Prezident İlham Əliyev demişdir: «Azərbaycan ölkədə yaşayan bütün xalqların doğma vətənidir. Azərbaycan çoxmillətli ölkədir. Burada müxtəlif dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Azərbaycanda nə milli, nə dini zəmində heç vaxt problem olmamışdır və olmayacaqdır. Bu, bizim strateji xəttimizdir. Azərbaycanda bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar».

Azərbaycan dövlətinin təməl prinsiplərindən biri də varislik, yaradıcı təkamül prinsipidir. Bu prinsip Azərbaycan xalqının söykənəcəyi mühüm prinsip kimi qeyd olunur və göstərilir ki, bizim yeni cəmiyyət quruculuğunda əsas vəzifələrimizdən biri keçmişimizdən ibrət dərsi almaqla cəmiyyətimizi irəli aparmaqdır. Varislik Azərbaycan xalqının əvvəlki tarixi dövrlərdə əldə etdiyi nailiyyətləri öyrənmək, prinsipial olaraq əldə edilənləri gələcək nəsillərə ötürməkdir. Bu, hakimiyyətin ideoloji, siyasi, iqtisadi baxımdan gələcək nəsillərə ötürülməsidir. Varislik mexaniki deyil, yaradıcı şəkildə, təkamül yolu ilə, inkarı inkar, yəni fəlsəfənin qanunları əsasında baş verir. Bu yaradıcı varislik nəticəsində biz bu gün ümummilli liderimizin yaratmış olduğu təməl üzərində Azərbaycanı irəliyə aparmaqdayıq. Dövlət canlı orqanizm kimi inkişaf edir. Dövlət inkişaf etdikcə cəmiyyət də buna paralel olaraq inkişaf edir. Təbii ki, bizim qədimdən bu yana əldə etdiyimiz nailiyyətləri toplamaq, araşdırmaq və bunu həm tarixi nöqteyi-nəzərdən, həm də dövlətçilik baxımından cəmiyyətə çatdırmaq vacibdir. Bu baxımdan varislik çox mühüm əhəmiyyət kəsb edir. Bizim milli-mənəvi dəyərlərimiz, özünəməxsusluğumuz var. Xalqın özünəməxsusluğunu qorumadan, bu özünəməxsusluğa söykənmədən onun milli-mədəni inkişafına nail olmaq mümkün deyildir. Xalqın özünüməxsusluğundan uzaqlaşsan, o zaman kosmopolitizmə yuvarlanacaqsan. Amma dünyamızın inkişaf xüsusiyyətlərini də nəzərə almaq lazımdır. Bu gün dünyamızda qloballaşma prosesləri gedir. Qloballaşma iqtisadi cəhətdən dövlətlərin bir-birinə daha sıx yaxınlaşması, informasiya mübadiləsinin sürətlənməsi, qlobal miqyaslı problemlərin dünya miqyasında həllində dövlətlərin əməkdaşlığı deməkdir. Qloballaşma milli mədəniyyətlərin aradan çıxması, milli-mənəvi dəyərlərin arxa plana keçməsi demək deyil. Bu gün Azərbaycan bir çox beynəlxalq təşkilatların üzvüdür. BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı kimi qurumlardakı fəaliyyətimiz, həmçinin bir çox dövlətlərlə ikitərəfli münasibətlərimiz Azərbaycanı dünyaya qovuşdurur, inteqrasiyasına təkan verir. Amma, dünyaya qovuşmaq Azərbaycan xalqının özünəməxsusluğuna zərər vurmamalıdır. Ona görə də Azərbaycan xalqının əldə etdiyi nailiyyətlər varislik, yaradıcı təkamül prinsipinə uyğun olaraq yaradıcı şəkildə inkişaf etdirilərək gələcək nəsillərə ötürülməlidir. Milli özünəməxsusluq məsələsi Prezident İlham Əliyevin siyasətində önəmli yer tutur. Milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunması və yeni dövrə uyğun olaraq inkişaf etdirilməsi, xarici siyasətimizdə islam ölkələri və türk dünyası ilə münasibətlərimizin özəlliyi və digər bu kimi istiqamətlər diqqəti cəlb edir.

Vətəndaş həmrəyliyi ümummilli liderimizin müəyyən etdiyi prinsiplərdən biridir. Vətəndaş həmrəyliyi Azərbaycan cəmiyyəti üçün olduqca vacib prinsiplərdəndir. Çünki cəmiyyətdə sabitliyə nail olmasaq, demokratik dəyərlərə söykənməsək, xalqın milli-mənəvi dəyərlərinə, mentalitetinə uyğun fəaliyyətimizi həyata keçirməsək, inkişafa nail ola bilmərik. Azərbaycan cəmiyyətində vətəndaş həmrəyliyi xalqımızı daxildən birliyə çağıran məsələdir. Vətəndaş həmrəyliyi həm də azərbaycançılıq ideyası əsasında birləşmək deməkdir. Vətəndaş həmrəyliyinə Azərbaycanda faktiki surətdə nail olunub. Məhz Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycanda vətəndaş sülhünə nail olunmuşdur. Amma bu, mövcud prinsiplərdən biri kimi qalmalıdır. Heç kəs vətəndaş həmrəyliyinin pozulmasına gətirib çıxaran hərəkətlərə yol verməməlidir. Vətəndaş həmrəyliyinin pozulması, vətəndaş qarşıdurmasının yaranması Azərbaycan cəmiyyəti üçün təhlükələrə gətirib çıxara bilər. Tarixi təcrübəmizdən ibrət götürməliyik. 1991-1993-cü illərdə Azərbaycan cəmiyyətində vətəndaş həmrəyliyinin pozulması, daxili dartışmalar, qarşıdurmalar, silahlı münaqişələr və s. nəticə etibarilə Ermənistan

tərəfindən ərazilərimizin işğal edilməsinə gətirib çıxardı. Yəni vətəndaş həmrəyliyinin pozulması vətən, dövlət və xalq üçün təhlükədir. 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanda vətəndaş həmrəyliyinin bərpa olunması istiqamətində ciddi addımların atılması ilə müşayiət olundu və Azərbaycanda vətəndaş həmrəyliyi, vətəndaş sülhü bərqərar edildi. 1995-ci ildə Konstitusiyanın qəbul edilməsi ilə Azərbaycan dövlətinin Heydər Əliyev prinsiplərinə söykənən qanunçuluğu meydana gəldi və həmin Konstitusiya eyni zamanda vətəndaş sülhünün hüquqi baxımdan təminatını həyata keçirdi. Konstitusiya, eyni zamanda dövlətçilik prinsiplərini, azərbaycançılığı özündə birləşdirdi. Vətəndaş sülhü Heydər Əliyevin müəyyən etdiyi mühüm bir prinsip kimi Azərbaycan vətəndaşlarının daimi nəzərindədir və gələcəkdə daha da inkişaf etdirilməlidir.

Azərbaycan dövlətinin digər bir təməl prinsipi sosial ədalətdir. Cəmiyyətdə ədalətə nail olmadan ölkəni inkişaf yoluna çıxarmaq mümkün deyil. Ədalət Azərbaycan cəmiyyətinin, Azərbaycan xalqının təbiətinə, ruhuna uyğundur. Ta qədimdən Azərbaycan xalqı ədalətə tərəfdar olub, ədaləti müdafiə edib. Ədalətlilik prinsipi bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətdə də özünü göstərir. Ədalətlilik ölkənin sosial-iqtisadi inkişafından ədalətli şəkildə xalqa pay düşməsi, Azərbaycan dövlətinin milli sərvətlərdən əldə olunan gəlirlərin insanlarımıza ədalətli şəkildə çatdırılmasıdır. Ədalətlilik, eyni zamanda cəmiyyətdə bazar iqtisadiyyatının yaratdığı ziddiyyətlərin hansısa bir zümrəyə ziyan vurmasının qarşısının alınması deməkdir. Bu, Azərbaycan cəmiyyəti üçün olduqca əhəmiyyətli bir prinsipdir. Cəmiyyətdə ədalət olmasa, qarşıdurma qaçılmazdır. Bütün cəmiyyətlərin tarixi göstərir ki, ədalət prinsipi pozulduqda qarşıdurma meylləri güclənir. Bu isə xaosa və anarxiyaya gətirib çıxara bilər. Ədalət prinsipinin təmin olunması islahatlardan keçir. Daimi islahatlar, inkişaf yolu ilə, həmçinin cəmiyyətdə insanların təbəqələşməsi fonunda müxtəlif siyasi və iqtisadi vasitələrlə sosial ədalətin təmin olunması bu gün ölkəmizdə uğurla gerçəkləşir. Sosial ədalət dedikdə hər bir ailənin, hər bir vətəndaşın rifahının yaxşılaşdırılması, cəmiyyətin idarəçiliyində hər kəsin iştirakının təmin edilməsi, azad iqtisadi münasibətlərin təminatı və bu kimi digər məsələlər nəzərdə tutulur. Azərbaycan Prezidenti İlham Əliyevin siyasətində bunlar açıq şəkildə özünü biruzə verir. Prezident İlham Əliyev deyir: «Ölkəmizin qarşısında böyük vəzifələr durur. Bizim məqsədimiz Azərbaycanı inkişaf etdirmək, ölkəmizdə yaşayan hər bir insanın həyat şəraitini yaxşılaşdırmaq, çoxlu sosial problemlərin həllində inkişaf etməkdədir».

Cəmiyyətimizin söykəndiyi ideoloji prinsiplər sırasında respublika idarə üsulu, Azərbaycanın idarəçiliyində xalqın iştirakı da əsas rol oynayır. Təsadüfi deyil ki, Azərbaycan Konstitusiyasında ən mühüm müddəa «Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır» tezisidir. Xalqın hakimiyyətin mənbəyi olması prinsipi respublika idarə üsulunun ən bariz nümunəsidir.

Ulu öndərimizin irəli sürdüyü əsas prinsiplər sırasında demokratiya da önəmli yerlərdən birini tutur. Demokratik dəyərlərə sədaqət Azərbaycan cəmiyyəti üçün əsas prinsiplərdən biridir. Ümummilli lider Heydər Əliyev Azərbaycanın demokratik dəyərlərə söykəndiyini və demokratiyaya daim sadiq olduğunu həmişə xüsusi olaraq vurğulayırdı. O həmişə qeyd edirdi ki, dövlətin inkişafı milli sərvətlərlə ölçülmür. Dövlət zəngin sərvətlərə malik ola bilər. Lakin dövlət əgər həmin sərvətlərə malik olub demokratik dəyərlərə söykənməsə, onun inkişafı müvəqqəti xarakter daşıyacaq. Dövlət o zaman inkişaf edə bilir ki, demokratik dəyərlərə söykənir. Bu barədə Prezident İlham Əliyev çox doğru olaraq deyib: «Mən tam əminəm ki, əsl açıq demokratik cəmiyyəti ancaq maddi rifah əsasında qurmaq mümkündür. İqtisadi cəhətdən geridə qalmış ölkələrdə demokratik proseslər də geridə qalır. O ölkələr ki, onlar iqtisadi cəhətdən güclüdürlər, orada sahibkarlıq inkişaf edibdir və azad sahibkarlıq böyük uğurlar qazanıbdır, o ölkələrdə demokratiyanın inkişafı da çox yüksək zirvədədir. Ona görə iqtisadi islahatların davam etdirilməsi, xalqın maddi rifahının yaxşılaşması, demokratik cəmiyyətin qurulması və formalaşması üçün başlıca şərtdir».

Heydər Əliyevin müəyyənləşdirdiyi ideoloji prinsiplər isə Azərbaycan dövləti və bütün azərbaycanlılar üçün vahid bir prinsipdir. Siyasi əqidəsindən, dünyagörüşündən, fəaliyyətindən, partiyalılığından asılı olmayaraq Heydər Əliyev irsi, Heydər Əliyev yolu, Heydər Əliyevin müəyyən etdiyi prinsiplər hamı üçün eynidir. Bu prinsiplərin özü də zaman-zaman yaradıcı təkamül yolu ilə, varislik yolu ilə gələcək nəsillərə ötürülür və keyfiyyətcə yeniləşir. Bu prinsiplər, əslində, Azərbaycan Konstitusiyasının, qanunlarımızın istiqamətlərini müəyyən edir və milli-mənəvi dəyərlərə söykəndiyi, dövlətimizi, xalqımızı irəliyə apardığı üçün hər kəs tərəfindən qəbul edilir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətt, sosial-iqtisadi sahədə əldə etdiyimiz uğurlar və s. yaradıcı yolla inkişaf etdirilir və bu, Heydər Əliyev ideyalarının inkişaf etdirilməsi deməkdir. Əsası Heydər Əliyev tərəfindən qoyulmuş dövlətçilik prinsiplərinə əsaslanmaqla Prezident İlham Əliyevin həyata keçirdiyi əsas məqsəd milli dövlətçiliyin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsindən ibarətdir. Ölkənin keçmiş iqtisadi gücünü və siyasi sabitliyi bərpa etmək, Yeni Dünya Nizamı çərçivəsində ölkənin regional və qlobal proseslərdə fəal iştirakını təmin etmək, xarici siyasətdə müdafiə konsepsiyasından hücum konsepsiyasına keçmək, ölkə üçün əhəmiyyətli olan bir sıra məsələlərə və problemlərə

beynəlxalq təşkilatların biganə münasibətini aradan qaldırmaq lazım idi. Son illərdə bu yöndə əldə edilmiş uğurlar hamıya məlumdur.

Yuxarıda qeyd olunan ideoloji prinsiplərə söykənərək Azərbaycan xalqı gələcəyə doğru inamla addımlayır, dövlətimiz inkişaf edir. Heç bir qüvvə ümummilli prinsiplərə zidd getməməlidir. Azərbaycanda hansı dövr, hansı hakimiyyət olursa-olsun, Heydər Əliyevin müəyyən etdiyi ideoloji prinsiplərdən kənarlaşmaq qeyri-mümkündür. Bu prinsiplər xalqımızın milli ideyasını təşkil edir. Heydər Əliyevin müəyyən etdiyi milli ideya Azərbaycan dövlətçiliyinin əsaslarıdır. Bu milli ideya ətrafında Azərbaycan xalqı gələcəyə doğru gedir, inkişaf edir. Milli ideya Azərbaycan xalqı üçün daimidir və Azərbaycanın daxili və xarici siyasətini müəyyənləşdirmək, iqtisadi inkişafını təmin etmək baxımından olduqca vacibdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: «Bizim hakimiyyətin yeganə mənbəyi xalqdır. Azərbaycan xalqından bizə verilən dəstək bizi gücləndirir və bizim məsuliyyətimizi də artırır. Biz bu məsuliyyətə hazırıq. Bu məsuliyyəti öz üzərimizə götürmüşük. Azərbaycan xalqı əsrlər boyu müstəqillik həsrətində idi. Nəsillər gəlirdi, gedirdi, ölkəmiz müstəqil deyildi. Başqa ölkələrin tərkibində yaşayırdı. Böyük sərvətdir, böyük xoşbəxtlikdir ki, biz, indiki nəsil bu müstəqilliyi görürük. Azərbaycan xalqı azaddır. Azərbaycan bayrağı bütün beynəlxalq tədbirlərdə, beynəlxalq təşkilatlarda dalğalanır. Biz azadıq, biz müstəqilik, biz güclü Azərbaycan yaradırıq, güclü dövlət qururuq… İndi biz inkişaf yolundayıq. Bizim qarşımızda bütün yollar açıqdır, səma aydındır, üfüqlər açıqdır və biz irəli gedirik…»

**“Səs”.-**2009.-12 dekabr.-N.233.-S.4-6.

## AZƏRBAYCAN SƏNAYESİNDƏ İNKİŞAFIN BANİSİ

**Mahmud QURBANOV,**
əməkdar mühəndis

**1969-cu il iyulun 14-də Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə respublikamızın həyatında tarixi bir mərhələ başlandı. Heydər Əliyev respublikanın birinci şəxsi, sonralar isə sözün həqiqi mənasında, milli lideri oldu, xalqımızın tarixi taleyinin əsl sahibinə çevrildi.**

Ulu öndər Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçiləndən iyirmi gün sonra Bakıda Mərkəzi Komitənin plenumu keçirildi. Plenumda ulu öndər böyük nitq söylədi. Respublikanın inkişafındakı nöqsanları, quruculuq sahəsində görüləcək işləri, qarşıda duran vəzifələri önə çəkdi.

Avqust plenumu öz qərarını, proqramını bilavasitə ilk partiya təşkilatları vasitəsilə həyata keçirməyi, onların rolunu və məsuliyyətini yüksəltməyi zəruri hesab etdi. Qısa bir zaman ərzində partiya komitələrinin və ilk partiya təşkilatlarının fəaliyyəti, onların iş üslub-metodları avqust plenumunun tələbləri səviyyəsinə qaldırıldı. Ölkədə əsl novatorluq dövrü başladı.

O zamanlar mən Bakı Şəhər Elektrik Şəbəkəsində mühəndis vəzifəsində çalışırdım. Çox çəkmədi ki, partiya fəaliyyətinə cəlb olundum. 1970-ci ildə Bakı Şəhər Elektrik Şəbəkəsinin partiya komitəsinin katibi seçildim. O vaxtlar şəbəkədə böyük quruculuq işləri aparılırdı. Yeni yarımstansiyaların sayı artırılır, şəbəkənin fəaliyyət sahəsi böyüyürdü. 2 min voltluq elektrik xətlərinin və avadanlıqların 6-10 min voltluq gərginliklə əvəz edilməsi normal enerji təminatı yaradırdı.

Şəhər, respublika plenumlarında, partiya-təsərrüfat yığıncaqlarında iştirak etdikcə ilk partiya təşkilatlarının fəaliyyətlərinin yüksəlməsinin, milli tərkibinin nizamlanmasının nəzərə çarpacaq dərəcədə dəyişməsinin şahidi olurdum.

Heydər Əliyevin müdrik rəhbərliyi sayəsində respublikada aparılan məqsədyönlü islahatlar və səmərəli idarəetmə, kadr siyasətinin düzgün həyata keçirilməsi əldə edilmiş nailiyyətlərin başlıca amili oldu. Məhz ardıcıl həyata keçirilən düzgün iqtisadi və sosial siyasət sayəsində geriliyə son qoyuldu, xalq təsərrüfatının bütün sahələrində dinamik artıma nail olundu. Əmək kollektivlərində möhkəm və sabit intizam, işgüzar, sağlam mənəvi-psixoloji mühit yaradıldı. İşgüzar şərait "Azelektroterm" Elm İstehsalat Birliyində də hökm sürürdü. Ulu öndər Heydər Əliyevin nəzarəti və təşəbbüsü ilə tikilən müasir sənaye obyektlərindən biri olan və bir neçə zavodu özündə birləşdirən "Azelektroterm" EİB həmin dövrdə gücü 400-600 tona qədər olan polad, çuqun, əlvan metallar əridə bilən elektrik sobaları və digər avadanlıqlar istehsal edən nəhəng istehsalat birliyi idi. Nərimanov rayonunda "Azelektroterm "in tərkibinə üç zavod və xüsusi konstruktor bürosu daxil idi. Eyni zamanda Əzizbəyov rayonundakı "Aşağı gərginlikli", Nərimanov rayonundakı "Yüksək gərginlikli", Salyan rayonundakı "Qaynaq aparatları" zavodları da birliyin tərkibinə daxil idi. Müəssisədə keyfiyyət nişanı ilə 38 adda məhsul istehsal edilirdi. Birliyin müəssisələrində buraxılan məhsullar 25-dən çox xarici ölkəyə göndərilirdi. Bu nəhəng istehsalat kompleksinin qazandığı bütün nailiyyətlər ulu öndər Heydər Əliyevin qayğısı sayəsində əldə edilmişdi.

Bakıya gələn İttifaq səviyyəli rəhbər işçilər mütləq müəssisəyə baş çəkirdilər. O zaman müəssisədə 5 minə qədər fəhlə, qulluqçu və mühəndis-texniki işçi çalışırdı.

1980-ci ildə mən artıq "Azelektroterm "də partiya komitəsinin katibi idim. 1980-ci ilin payız günlərində "Azelektroterm "də partiya komitəsinin hesabat-seçki konfransına ciddi hazırlıq gedirdi. Konfransın keçiriləcəyi noyabrın 2-si yaxınlaşdıqca həyəcanımız daha da artırdı. Çünki Bakı Şəhər Partiya Komitəsindən xəbər vermişdilər ki, Azərbaycan KP MK-nın birinci katibi, Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd Heydər Əliyev konfransda iştirak edəcək.

Kollektivin hər bir üzvü həmin günü səbirsizliklə gözləyirdi. Konfrans gündüz saat 15-də başlanmalı idi. Lakin Heydər Əliyev səhər saat 11 radələrində müəssisəyə gəldi. Konfransın başlanmasına qədər EİB-in müəssisələri ilə, işçilərin əmək şəraiti ilə tanış oldu, yeməkxanaya baş çəkdi. Birliyin həyətində yaradılmış yaşıl zona xoşuna gəldi. Müharibə və əmək veteranları ilə görüşdü.

Görüş zamanı Heydər Əliyev müəssisədə əməyin təşkilinin mütərəqqi formalarından daha dolğun istifadə edilməsini, zəhmətkeşlərə bu barədə vaxtında geniş məlumat verilməsini, onların peşə səviyyəsinin artırılmasına qayğı göstərilməsini, işçilərin ehtiyac və tələbatına həssaslıqla yanaşmağı, əmək kollektivi üzvlərinin rəyinə hörmət bəslənilməsinin vacib olduğunu tövsiyə etdi.

Nəhayət, konfrans başlandı. Hesabat məruzəsindən sonra nümayəndələr bir-birinin ardınca müəssisədə görülən işlər barədə hesabat verdilər. Heydər Əliyev bütün çıxışlara diqqətlə qulaq asır və qeydlər aparırdı.

Sonra ulu öndər nitq söylədi. Çıxışına qulaq asdıqca bu dahi şəxsiyyətin prinsipial mövqeyi, gələcəyə inamı konfrans iştirakçılarını heyran edirdi.

Dahi rəhbər hesabat-seçki konfransında xüsusi qeyd etdi ki, kadrların seçilməsinə, yerləşdirilməsinə ciddi fikir verilməlidir. Ulu öndər əsasən gənc mütəxəssislərə və respublikanın göndərişi ilə ali məktəblərdə oxumuş kadrlara yüksək qayğı ilə yanaşmağı, onların sosial məsələlərinin həll edilməsinə diqqət yetirməyi tövsiyə etdi.

O zaman "Azelektroterm "in müəssisələrində işləyənlərdən 50 nəfərdən çoxu göndərişlə SSRİ-nin müxtəlif şəhərlərində təhsil almış gənc mütəxəssislər idi. Onların çoxu bu gün də respublika iqtisadiyyatının müxtəlif sahələrində çalışır.

Heydər Əliyevin "Azelektroterm "ə gəlişi müəssisənin həyatında əlamətdar hadisəyə çevrildi. Müəssisənin uğurlu fəaliyyətinə daha böyük stimul verdi.

Bir sözlə, 1969-cu ildən sonra ölkəmizdəki yüksək iqtisadi nailiyyətlər respublika rəhbərliyinin məqsədyönlü fəaliyyəti sayəsində qazanılmışdı. Ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycanda Heydər Əliyevin qayğısı və təşəbbüsü ilə tikinti işləri böyük vüsət aldı, çoxlu sənaye müəssisələri tikildi. 1970-1982-ci illərdə Azərbaycanda Bakı Kondensioner Zavodu, Bakı Dərin Özüllər Zavodu, Ələtdə Ağac emalı kombinatı, Gəncədə Əlvan metallar zavodu, Naxçıvanda Şüşə zavodu və s. sənaye müəssisələri istifadəyə verilmişdi.

Hamı yaxşı bilir ki, 1993-cü ilin iyununda ölkəmiz fəlakət qarşısında qalanda, dövlət müstəqilliyimizi yenidən itirmək təhlükəsi ilə üzləşəndə xalq qəti mövqeyini ortaya qoyaraq öz nicatını Heydər Əliyevin hakimiyyətə qayıtmasında gördü. Xalqın arzu və tələbi ilə hakimiyyətə qayıdan dahi Heydər Əliyev böyük xilaskar kimi Azərbaycanı parçalanmaq, məhv olmaq təhlükəsindən qurtardı. Ulu öndərin ardıcıl, məqsədyönlü siyasəti sayəsində respublikamızda bərqərar olunmuş əmin-amanlıq, iqtisadi sabitlik istehsalatda da işgüzar şərait yaratdı.

Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi dövründə də ölkəmizin böyük uğurlara imza atması, sürətli iqtisadi inkişaf tempi ilə dünyada lider mövqeyini qoruyub saxlaması məhz dövlət idarəçiliyinin uzun illər ərzində formalaşmasının nəticəsidir. Ümummilli liderin inkişaf strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyev qısa müddətdə Azərbaycanı sürətlə inkişaf edən, sabit və qüdrətli dövlətə çevirməyə müvəffəq olub. Cənab İlham Əliyev gələcək fəaliyyətinin prioritetlərini açıqlayaraq demişdir: "Azərbaycanı qüdrətli dövlətə çevirmək ən başlıcası ölkədə Heydər Əliyevin siyasətini davam etdirməkdir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacaq, heç vaxt bu yoldan dönməyəcəyəm. Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

Artıq altı ildən çoxdur ki, Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev ulu öndərin başa çatdıra bilmədiyi arzularını çox böyük uğurla həyata keçirir. Cənab Prezident çıxışlarının birində bu barədə demişdir: "İnsan üçün öz xalqına xidmət etməkdən, xalqa xeyir verməkdən, onun hörmət və məhəbbətini qazanmaqdan böyük xoşbəxtlik ola bilməz. Biz hamımız bütün bunları liderimiz Heydər Əliyevdən öyrənməli, ona oxşamağa çalışmalıyıq".

"**Azərbaycan**".-2009.-13 dekabr.-N 277.-S.3.

# HEYDƏR ƏLİYEV VƏ DÖVLƏT İDARƏÇİLİYİ

**Nigar ƏLƏKBƏROVA,**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının politologiya və siyasi idarəetmə kafedrasının müdiri,
fəlsəfə elmləri doktoru, professor,
Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü

**Dövlət idarəçiliyinin zirvəsini fəth edən ümummilli lider Heydər Əliyev müasir, öz sözünü deməyə qadir olan güclü Azərbaycan dövlətini yaradan, dəhşətli çətinliklərdən çıxararaq möhkəmləndirən və bütün dünyaya tanıdan dahi siyasi strateq və taktik kimi tarixi yaddaşımızda silinməz iz qoymuşdur. Məhz ulu öndərin rəhbərliyi altında müstəqilliyimizin ilk illərində baş verən hərc-mərcliyin və dövlətdə idarəçiliyin itirilməsinin qarşısı alınaraq siyasi sabitliyin və dövlətin idarə edilməsinin bərpası dövrü başlanmışdır.**

Vətən məfkurəsini, dövlətçilik ideyasını hər şeydən uca tutan bu böyük şəxsiyyət güclü Azərbaycan dövlətini yaratmaq üçün ilk növbədə yeni milli dövlət idarəçiliyi və dövlət qulluğu sisteminin əsasını qoymuşdur. Belə ki, 1995-ci ildə ümumxalq referendumunda məhz ölkə Prezidenti Heydər Əliyev dühasının məhsulu olan Konstitusiya qəbul edildi və beləliklə ölkənin gələcək inkişafı üçün müasir dünya tələblərinə cavab verən demokratik, sivil, hüquqi dövlətin formalaşması istiqamətində çox cəsarətli addım atıldı.

Azərbaycan Respublikasının Konstitusiyası müasir sivil dünyada qəbul edilmiş normaya uyğun olaraq hakimiyyətin üç hissəyə bölünməsini təsdiqləməklə dövlət idarəçiliyinin ümumi prinsiplərini müəyyənləşdirdi. Beləliklə, Azərbaycanda dövlət idarəçiliyinin və dövlət qulluğu sisteminin yaradılmasına başlanıldı. 1996-cı ildə Prezident Heydər Əliyevin sərəncamı ilə təşkil edilmiş Hüquqi İslahat Komissiyasının səyləri ilə müstəqil dövlətin öz qanunvericilik bazasının formalaşması da həyata keçirildi. Komissiya üzvlərinin qarşısında qoyulmuş məqsəd Azərbaycanda inkişaf etmiş ölkələrin hüquq sisteminə uyğun, eyni zamanda öz tələbatlarımıza cavab verən sistemin yaradılması idi. Zaman sübut etdi ki, Hüquqi İslahat Komissiyası və onun bütün üzvləri bu məqsədə çatmaq üçün həqiqətən də yüksək səylə işləmişlər; ötən dövr ərzində Azərbaycanda 10-dan artıq yeni məcəllə və 1000-dən artıq qanun qəbul edilmişdir.

Çox qısa bir zamanda Azərbaycanda hakimiyyət bölgüsü və qanunun aliliyi prinsipinə əsaslanan müasir demokratik dövlətin özəyini təşkil edən institusional sistemin yaradılması sahəsində kifayət qədər təcrübə toplanmışdır. Ölkədə prezident idarəçilik üsulu ilə respublika modeli çərçivəsində əsas demokratik seçkilər əsasında formalaşdırılan nümayəndəli orqanlar, qanunverici orqan qarşısında hesabat verən icra hakimiyyəti, institusional baxımdan müstəqil məhkəmə orqanları yaradılmış, yerli özünüidarəetmə orqanlarının formalaşması və optimallaşdırılması prosesinə başlanılmışdır. Yeni dövlətçiliyin institusional sisteminin yaradılması mərhələsindən sonra Prezident Heydər Əliyevin rəhbərliyi altında həmin sistemin yerli şəraitə uyğun optimal formalarının axtarışı prosesi davam etdirildi. Bu proses struktur islahatlarının dərinləşməsi və genişləndirilməsi, dövlət idarəetmə prosesinin təşkilinin daha səmərəli formalarının tapılması ilə bağlı vəzifələri qarşıya qoydu. Dövlət komitələri və nazirliklərin birləşdirilməsini, bəzi yeni nazirliklərin, məsələn Yanacaq və Energetika, Nəqliyyat nazirliklərinin yaradılmasını həmin prosesin tərkib hissəsi kimi göstərmək olar. Bütövlükdə 20-dən artıq idarəetmə orqanının ləğv edilməsi, yeni nazirlik, komitə və idarələrin yaradılması, maliyyə, bank, vergi və sığorta sistemlərində institusional islahatların aparılması dövlət idarəçiliyi sahəsində nəticə etibarilə müsbət dəyişikliklərə, konkret olaraq idarəetmə strukturunun təkmilləşdirilməsinə, dövlət idarəetmə orqanları sisteminin funksional prinsip üzrə formalaşdırılmasına gətirib çıxardı.

Prezidentin 1998-ci il dekabr ayının 29-da imzaladığı “Azərbaycan Respublikasında dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında ” fərman səmərəli dövlət idarəetmə sisteminin formalaşdırılması istiqamətində aparılan ciddi islahatların başlanğıcını qoydu.

İslahatların dörd istiqamət üzrə aparılması nəzərdə tutulurdu: dövlət xərclərinin idarə olunması sisteminin yenidən qurulması, audit sisteminin islahatı, dövlət idarəetmə sisteminin (inzibati dövlət qulluğu) islahatı, hüquq və məhkəmə sisteminin islahatı. 1999-cu ilin mart ayında Azərbaycan hökumətinin və Dünya Bankının ekspertlərinin iştirakı ilə Azərbaycanda dövlət idarəetmə sisteminin islahatları probleminə həsr olunmuş beynəlxalq konfrans keçirildi. Bu sahədə mövcud problemlər, onların həlli yolları, gözlənilən islahatların konsepsiya layihəsinin məzmunu ilə bağlı ətraflı müzakirələr aparıldı.

İslahatların keçirilməsində ən vacib məsələlərdən biri hökumətin strukturunun yenidən qurulmasından, sahə prinsiplərindən funksional prinsiplərə keçməklə idarəetmənin strukturunun əsaslı sadələşdirilməsindən ibarət idi.

Səmərəli idarəetmənin ən mühüm şərtlərindən biri dövlət sektorunda resursların idarə olunması sisteminin yenidən qurulması məsələsidir. Bu məqsədlə bir neçə addım atılmışdır. Əvvəla, büdcə sistemi haqqında yeni qanun qəbul edilmişdir.

Neftin satışından daxil olan valyuta vəsaitlərinin və digər gəlirlərin toplanması və səmərəli idarə edilməsi, həmin vəsaitlərin öncül sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsini təmin etmək üçün ölkə Prezidenti Heydər Əliyevin 29 dekabr 1999-cu il 240 saylı sərəncamı ilə Dövlət Neft Fondu yaradılmış, onun Əsasnaməsi təsdiq edilmişdir. Dövlət idarəetmə orqanlarının fəaliyyətində paralelçiliyi və təkrarlanmaları aradan qaldırmaq, büdcə xərclərini rasionallaşdırmaq məqsədilə müxtəlif idarəetmə orqanlarının funksiyaları dəqiqləşdirilmiş, ixtisarlar aparılmış, inzibati islahatları həyata keçirmək üçün başqa tədbirlər görülmüşdür.

Dövlətin səmərəli fəaliyyətini təmin etmək və qarşıda duran problemlərin müvəffəqiyyətli həlli üçün yüksək ixtisaslı, qanunla müdafiə olunan, cəmiyyətin maraqlarını üstün tutan, ləyaqətli, mədəni, müasir informasiya vasitələrindən istifadə etmək bacarığı olan, səmərəli rəhbərlik edə bilən dövlət qulluqçularından çox şey asılıdır. Bundan irəli gələrək zamanın tələblərinə cavab verən dövlət qulluğu institutunun formalaşdırılması ən vacib məsələlərdən biri kimi qarşıya qoyuldu. Həmin məqsədlə “Dövlət qulluğu haqqında” Qanun işlənib hazırlanaraq 21 iyul 2000-ci il tarixdə qəbul olunmuş və 2001-ci ilin sentyabr ayından qüvvəyə minmişdir. 2 iyul 2002-ci il və 3 dekabr 2002-ci il tarixli qanunlarla ona dəyişikliklər edilmişdir.

Qanunun qəbul olunması ölkədə dövlət qulluğunun islahatları prosesinin əsasını təşkil edən meyar və prinsipləri müəyyənləşdirmiş, müxtəlif kateqoriyalı dövlət qulluqçuları arasında dəqiq vəzifə bölgüsünü və onların öz funksiya və vəzifələrini yerinə yetirməsini təmin edən attestasiya və təsnifat sistemini yaratmış, dövlət qulluqçularının işinin səmərəliliyini qiymətləndirməyə və ixtisasartırma tələbatını müəyyənləşdirməyə imkan verən, qulluqda irəliləmələrin əməkdaşın fərdi keyfiyyətlərindən və peşəkarlıq səviyyəsindən asılılığını təmin edən, yüksək ixtisaslı əməkdaşların dövlət qulluğunda qalmasına şərait yaradan nəzarət sisteminin formalaşdırılmasına imkan yaratmışdır.

Qanunda dövlət qulluğunun cəmiyyət qarşısında məsuliyyətini və cəmiyyətə xidmət göstərməyə yönümlülüyünü, şəffaflığını, peşəkarlığını, etikliyini təmin edən prinsiplər müəyyənləşdirilmişdir. Dünya təcrübəsinə əsaslanan və bir çox aspektlərdə beynəlxalq standartlara cavab verən bu qanun mühüm irəliləyiş kimi dəyərləndirilə bilər.

Dövlət qulluğu haqqında qanunun tətbiqinə nəzarəti, dövlət qulluğunun normativ-metodiki təminatını, dövlət qulluqçuları kateqoriyasına aid edilən şəxslərin siyahısını müəyyən etmək, bütövlükdə Azərbaycanda dövlət qulluğu ilə bağlı problemlərin həllini təmin etmək üçün Dövlət Qulluğunu İdarəetmə Şurası təşkil olunmuş və fəaliyyətə başlamışdır. Belə bir müstəqil orqanın yaradılması dövlət qulluğuna qəbul, qulluqda irəliləmə, dövlət qulluqçularının attestasiyası, onların maddi təminat və nizam-intizam məsələlərinin həlli zamanı istifadə olunan müxtəlif prosedurların səmərəliliyini, şəffaflığını və obyektivliyini təmin etmək üçün olduqca vacibdir.

Qanunun tətbiqi ilə bağlı bir sıra tədbirlər görülmüş, normativ sənədlər hazırlanmış və qəbul olunmuşdur. Bu sənədlərdə ilk dəfə olaraq dövlət qulluğuna qəbul, bunun üçün müsabiqə keçirilməsi, dövlət qulluğunda işləməyin mümkün olub-olmamasının yoxlanılması, dövlət qulluqçularının attestasiyasının keçirilməsi, icbari sığortası, onlara əlavə haqq verilməsi, hakimiyyət səlahiyyətlərinin icrası, qulluq stajına, ixtisas dərəcələrinə görə vəzifə maaşlarına yerli əmsalların müəyyən edilməsi və bir çox başqa məsələlər konkret olaraq nizamlanmışdır. “Dövlət qulluğu haqqında” Qanunun real surətdə işləməsinə təkan verən Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli “İnzibati və yardımçı vəzifələrin Təsnifatı Toplusu” fərmanı xüsusi qeyd olunmalıdır. Bu mühüm əhəmiyyətli sənədin təsdiq edilməsi ilə dövlət qulluğunun təşkilində yeni mərhələ başlandı. “Toplu”da 5 bölmə var. Bu bölmələrdə Təsnifat Toplusunun nədən ibarət olması, onun dövlət orqanlarının ştat cədvəllərinin və dövlət qulluqçularının vəzifə təlimatlarının hazırlanması üçün əsas olduğu, bu vəzifə təlimatlarının respublika Prezidenti və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən qəbul edildiyi, qanunvericilik və məhkəmə hakimiyyəti orqanlarında, Naxçıvan MR-in müvafiq orqanlarında bu səlahiyyətlərin kimin yerinə yetirdiyi, habelə dövlət orqanlarının aparıcı və köməkçi bölmələri dedikdə nəyin nəzərdə tutulduğu öz əksini tapmışdır. Burada inzibati və yardımçı vəzifələrin necə adlandırılması və dövlət qulluğunun təşkilində əsas götürülməsi təsbit olunmuşdur. Toplunun təsdiq edilməsindən sonra dövlət qulluğunun təkmilləşdirilməsi və yenidən qurulması üçün real imkanlar yarandı.

2002-ci ilin mart ayından Avropa İttifaqının Azərbaycanda dövlət qulluğu sahəsində islahatların həyata keçirilməsi üzrə “TACİS” (TASİS) layihəsi fəaliyyətə başladı ki, onun məqsədi:

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun icra olunması strategiyasının işlənib hazırlanmasına;

İşə qəbul, sınaq və daha yüksək vəzifəyə təyin olunmağa dair daha ətraflı təlimatın işlənib hazırlanmasına;

Dövlət qulluqçularının mərkəzləşdirilmiş məlumat bazasının yaradılmasına yardım göstərməkdən ibarət idi.

Beləliklə, ölkədə dövlət qulluğu institutunun formalaşdırılması və onun bütün əsas cəhətlərinin qanunvericilik yolu ilə tənzimlənməsi bütövlükdə dövlət idarəçiliyinin optimallaşdırılması, dövlətin möhkəmləndirilməsi və vətəndaş cəmiyyətinin inkişafında əhəmiyyətli müsbət dəyişikliklərə nail olunması, bazar iqtisadiyyatının formalaşdırılması prosesinə və iqtisadi tərəqqiyə yardım edilməsi, göstərilən dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, dövlət resurslarından istifadənin rasionallaşdırılması işinə yönəldilmişdir. Yuxarıda göstərilənlərə nail olmaq üçün Azərbaycanda dövlət qulluğu institutu böyük öndər Heydər Əliyevin rəhbərliyi altında ölkənin tarixi, mədəni, milli və digər səciyyəvi xüsusiyyətlərini, eyni zamanda, bu sahədə dünya təcrübəsini, demokratik prinsipləri nəzərə almaqla vahid bir sistem kimi formalaşdı.

Təbii ki, dövlət idarəçiliyi və dövlət qulluğu sisteminin səmərəli fəaliyyətini təmin etmək üçün innovasiya idarəetmə texnologiyalarını mənimsəmiş, müasir idarəetmə təfəkkürünə malik, yüksək dövlətçilik əxlaqına və idarəetmə mədəniyyətinə yiyələnmiş istedadlı peşəkar kadrlara böyük ehtiyac duyulur. Respublikamızda aparılan genişmiqyaslı islahatların həyata keçirilməsi üçün idarəçi kadrların hazırlanmasının, yenidən hazırlanmasının və ixtisasının artırılmasının çox böyük əhəmiyyəti vardır. Dövlət idarəçilik sahəsində uğurla çalışa biləcək yeni tipli mütəxəssislərin hazırlanması işini müasir tələblərə uyğun qurmaq, onların peşəkarlıq səviyyəsini artırmaq, həmin sahədə elmi tədqiqatların aparılmasını təşkil etmək və analitik-informasiya təminatını möhkəmləndirmək məqsədilə ulu öndər Heydər Əliyevin 3 yanvar 1999-cu il tarixli 60 saylı fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası yaradıldı. Bu yaxınlarda 10 illiyini qeyd edən akademiya ümummilli lider Heydər Əliyevin qayğısı sayəsində intensiv inkişaf yolu keçmiş, inzibati idarəetmə, dövlət və bələdiyyə idarəçiliyi sahəsində ölkəmizin əsas elm və təhsil ocağına çevrilmişdir. Burada qarşıya qoyulan başlıca məsələ əsl peşəkarlıqla yanaşı tələbə və müdavimlərdə siyasi mədəniyyəti, dövlətçilik əxlaqını, yüksək mənəvi keyfiyyətləri, vətənə və dövlətə sədaqət hissini formalaşdırmaqdır. Akademiyada dövlət qulluqçularının professional səviyyələrinin yüksəldilməsi, kadr ehtiyatının yaradılması, dövlət idarəçiliyi nəzəriyyəsinin əsasının qoyulması və inkişaf etdirilməsi, tədris prosesinin elmi-tədqiqat fəaliyyəti ilə inteqrasiyasına nail olunması istiqamətində böyük işlər aparılır. Akademiyada yaradılan "Heydər Əliyev Dövlət İdarəçilik Universiteti"ndə Heydər Əliyevin dövlət idarəçilik təcrübəsi öyrənilir, bu dahi şəxsiyyətin Azərbaycan xalqının həyatında, tarixində və taleyində əvəzedilməz rolundan ətraflı söz açılır. Burada keçirilən "dəyirmi masa"ların, tanınmış elm və dövlət xadimlərilə görüşlərin əsasını Heydər Əliyevin dövlət idarəçiliyi, nəzəriyyə və təcrübəsinə töhfəsi, demokratik cəmiyyət və bazar iqtisadiyyatının təşkili, hüquqi, demokratik dövlət, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və qorunması ilə əlaqədar fundamental ideyaları təşkil edir. Xüsusilə vurğulanmalıdır ki, akademiya zəmanəmizin ruhu, dövrümüzün tələblərinə uyğun olaraq fəaliyyət göstərir.

Azərbaycanda isə demokratik dövlətin inkişafında yeni mərhələ-innovasiya mərhələsi yaşanmaqdadır. İnnovasiya mərhələsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi kursunun effektiv həyata keçirilməsi üçün yeni təfəkkürlü, müasir dövlət inzibatçılığının texnologiyası, dövlət qərarlarının qəbul edilməsi nəzəriyyəsi, siyasi və sosial proqnozlaşdırma metodologiyası, strateji menecmentin xüsusiyyətləri, innovasiyalı proseslərin idarə edilməsi əsaslarını dərindən bilən gənc kadrlara ehtiyac duyulur. Buna görə də idarəçilik sahəsində müvafiq işgüzar, professional və əxlaqi-mənəvi keyfiyyətlərlə seçilən ən yüksək ixtisaslı mütəxəssislərin hazırlanması işi Dövlət İdarəçilik Akademiyasında günü-gündən gücləndirilir.

Böyük dövlət xadimi və nadir şəxsiyyət olan Heydər Əliyevin idarəçilik məktəbi bizə bunu öyrədir.

**"Xalq qəzeti".-**2009.-13 dekabr.-N 277.-S.4.

## MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN QURUCUSU

**Rafael CƏBRAYILOV,**
Milli Məclisin deputatı

**Xalqların milli inkişaf yolunun banisinə çevrilən fenomen liderlər həm də böyük müdrikliklə irəli sürdükləri mütərəqqi ideyaların davamlılığını təmin etmişlər. Belə siyasi liderlər dövlət hakimiyyətini ölkənin, sadəcə, bugünkü mənafeyi baxımından deyil, həm də gələcək mənafeyi baxımından təşkil etməyə, dövlətçiliyin ideoloji-siyasi və iqtisadi əsaslarını formalaşdıraraq optimal dövlət modeli yaratmağa nail olmuşlar. Müstəqil Azərbaycanın milli inkişaf modelinin banisi, ulu öndər Heydər Əliyev də təkamülə əsaslanan demokratik tərəqqi yolunun alternativsizliyini real əməli nəticələrlə sübuta yetirməklə bərabər, dövlətçiliyin ideoloji, siyasi, hüquqi və iqtisadi əsaslarını fundamental elmi-praktik prinsiplər əsasında müəyyənləşdirmişdir.**

Ulu öndərin əbədiyyətə qovuşmasından ötən 6 illik zaman kəsiyi bu fenomen şəxsiyyətin milli dövlətçilik tariximizdəki yerini və rolunu daha obyektiv dəyərləndirmək imkanı verir. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr bütövlükdə xalqın azadlıq, müstəqillik arzularının gerçəkləşməsinə real hüquqi, siyasi və iqtisadi əsasların yaradılması, bu möhkəm baza üzərində qazanılmış dövlət müstəqilliyinin möhkəmləndirilməsi, xalqın təbii konstitusion hüquqlarına sahib çıxması, milli-mənəvi yüksəlişə nail olması, fərdin özünü vətəndaş kimi dərk etməsi kimi iftixar doğuran şanlı epoxanı əhatə edir.

Ümummilli liderin Azərbaycan qarşısındakı əvəzsiz tarixi xidmətlərinin ən qabarıq siyasi təzahürü isə onun dayanıqlı milli dövlət qurması, onu möhkəmləndirməsidir. Xalqımız tarixən milli dövlət qurmaq uğrunda davamlı mübarizə aparsa da, yalnız ötən əsrin sonlarında uzunmüddətli istiqlal mübarizəsinin məntiqi yekunu olaraq bu arzusuna qovuşmuşdur. Hələ 1991-ci il 18 oktyabr tarixində ulu öndər Heydər Əliyevin də imza atdığı "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" dövlətimizi rəsmi olaraq 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Demokratik Respublikasının varisi və müstəqil respublika elan etmişdir. Həmin aktda Azərbaycan xalqının eyni zamanda idarəetmə formasını seçmək, başqa xalqlarla münasibətlərini müəyyənləşdirmək, siyasi, iqtisadi və mədəni həyatını öz tarixi və milli ənənələrinə, ümumbəşəri dəyərlərə uyğun inkişaf etdirmək hüququ təsbit olunmuşdur. "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın 12-ci maddəsində Azərbaycan xalqının müstəqil, dünyəvi, demokratik, hüquqi və unitar dövlət yaratma yolunu tutması fikri əksini tapmışdır.

Dövlət müstəqilliyinin ilk illərində – 1991-ci ildən 1993-cü ilin iyununa qədərki mərhələdə respublikada mövcud olmuş fəlakət və sarsıntılar, ağır sosial-iqtisadi böhran, hərc-mərclik, anarxiya təsdiqlədi ki, dövlət müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. 1991-1993-cü illərdə respublikamız de-yure müstəqil sayılsa da, əslində, bu müstəqillik formal xarakter daşımış, xalqımız ədalətli və sivil dövlətdə yaşamaq arzusunu tam mənada gerçəkləşdirə bilməmişdir. Həmin illərdə Azərbaycanda hakimiyyətdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi maneəyə çevrilməklə yanaşı, daxili böhranın, vətəndaş itaətsizliyinin, xaos və anarxiyanın yaranmasına rəvac vermiş, qanunçuluğun və hüquq qaydalarının təmini, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun, ən nəhayət, ictimai asayişin qorunması sahəsində əsaslı problemlər yaratmışdı. O zaman hakimiyyətdə olan qüvvələrin səriştəsiz və yarıtmaz fəaliyyəti nəticəsində hüquq-mühafizə orqanlarının üzərinə düşən qanuni vəzifələri həyata keçirə bilməməsi ictimai həyatın müxtəlif sahələrində hərc-mərcliyin baş alıb getməsinə, daxildə qeyri-sabit və təhlükəli vəziyyətə səbəb olmuşdu. Dövlət idarəçiliyinin iflic vəziyyətinə düşməsi, ayrı-ayrı siyasətçilərin "könüllü döyüşçü" adı altında qanunsuz silahlı dəstələr yaratması nəticə etibarı ilə hakimiyyətdə olan qüvvələrin iflasını daha da sürətləndirirdi. Belə şəraitdə nəinki hüquqi dövlətdən, demokratiyadan, hətta insanların təhlükəsiz yaşamaq kimi adi hüququndan danışmaq belə mümkün deyildi.

Cəmiyyətin fəal zümrəsi olan gənclərin müxtəlif vasitələrlə bu siyasi oyunlara, qanunsuz silahlı qruplaşmalara cəlb edilməsi, məkrli tədbirlərin həyata keçirilməsində "siyasi alət" kimi istifadə olunması meylləri xüsusən narahatlıq doğururdu. Faktiki olaraq müxtəlif silahlı qruplara bölünən, parçalanan Azərbaycan gəncliyinin enerjisindən o illərdə dövlət və dövlətçiliklə bağlı praktiki məqsədlər üçün deyil, konyunktur maraqlar naminə istifadə edilirdi.

Ayrı-ayrı siyasi partiyaların qanunsuz silahlı birləşmələrə malik olmaqla dövlətin o zamankı rəhbərliyinə tabe olmaması nəticəsində hakimiyyət böhranının dərinləşməsi ölkənin cənubunda və şimalında separatçıların məkrli niyyətlərini həyata keçirmələri üçün münbit şərait yaranmışdı. Şimalda "Sadval " hərəkatı açıq fəaliyyətə başlamış, cənubda isə qondarma "Talış-Muğan Respublikası" yaradılmaqla Azərbaycanın bütün

cənub bölgəsinin faktiki olaraq respublika ilə əlaqəsi kəsilmişdi. Qondarma "sərhəd" yaradılmış, qondarma "dövlət"in hakimiyyət orqanları belə yaradılaraq vəzifəli şəxslər təyin edilmişdi. Respublikanın bütün cənub bölgəsi de-fakto Azərbaycan Respublikasının yurisdiksiyasından çıxmışdı. Hakimiyyətdə olan qüvvələr isə Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə bağlı heç bir əməli tədbir görmək iqtidarında belə deyildi. Ermənistanla sərhəddə Azərbaycan torpaqlarının müdafiəsi, sadəcə, taleyin ümidinə buraxılmışdı.

Azərbaycanda xaos və anarxiya hökm sürürdü. İqtisadiyyat dağıdılmış, insanların yaşayış səviyyəsi kəskin şəkildə aşağı düşmüş, cinayətkarlığın səviyyəsi maksimum həddə çatmışdı. Qarabağda döyüşmək üçün ağır və xüsusilə ağır cinayət törətmiş şəxslər belə, həbsdən azad edilərək silahlandırılmışdı. Bu "ağıllı" hərəkətin acı nəticələrini aradan qaldırmaq üçün sonrakı dövrdə hüquq-mühafizə orqanları bir neçə il gərgin işləməli oldular.

Həmin vaxt Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat cütlüyü parlament seçkilərini keçirməyi də lazım bilmədi, Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının qəbul edilməsi üçün cəhd belə etmədi. Çünki hakimiyyətdə olanlara qanun lazım deyildi. Özlərini demokratik qüvvə hesab edən və demokratik şüarlarla hakimiyyətə gələn bu qüvvələrin yüksək dövlət vəzifəsi tutan şəxsləri jurnalist döyməkdən, televiziyanın canlı efirində xuliqanlıq etməkdən belə çəkinmədilər.

Bütün bunlar ona görə baş verirdi ki, həmin vaxt Azərbaycanda de-fakto dövlət yox idi. Respublikamızın coğrafi ərazisində Azərbaycan Respublikası adlı dövlət de-yure mövcud olsa da, BMT tərəfindən tanınsa da, faktiki olaraq Azərbaycanda xaos, anarxiya, özbaşınalıq, hərc-mərclik, ərazi bütövlüyünün əsaslı şəkildə pozulması, qonşu dövlətlərlə münasibətlərin maksimum səviyyədə pisləşməsi, insan hüquqlarının kobud pozuntusu, hakimiyyətdə olanların səriştəsizliyi, bacarıqsızlığı, demokratiyanın boğulması kimi əlamətlərlə xarakterizə olunan hakimiyyətsizlik, dövlətsizlik idi. Azərbaycanda dövlət deyil, dövlət adı ilə fəaliyyət göstərən "siyasi özfəaliyyət dərnəyi" qabiliyyətində olan bir qurum vardı.

1993-cü ilin iyun ayının əvvəllərində Gəncə şəhərində xalqın dəstəyindən tamamilə məhrum olmuş mərkəzi hakimiyyətə qarşı baş qaldırmış hərbi qiyam isə ölkədəki hərc-mərcliyin, anarxiya mühitinin, siyasi hakimiyyətə qarşı total inamsızlığın kulminasiya həddinə yetişməsi idi. Faktiki olaraq bəzi xarici qüvvələrin də dəstəklədiyi bu silahlı qiyam Azərbaycanın yenicə nail olduğu dövlət müstəqilliyinə ciddi təhlükə olmaqla yanaşı, silahlı vətəndaş müharibəsinə, Azərbaycanın ayrı-ayrı bölgələrə parçalanmasına zəmin yaratmışdı. Azərbaycan faktiki olaraq dövlət müstəqilliyini itirmək ərəfəsində, xalq isə vətəndaş müharibəsinin astanasında idi.

Belə bir mürəkkəb şəraitdə xalqın səsinə səs verərək hakimiyyətə qayıdan Heydər Əliyev respublikanı milli müstəqilliyin itirilməsi təhlükəsindən qurtarmış, çağdaş tariximizə dövlətçiliyin xilaskarı, qurucusu kimi daxil olmuşdur. Böyük strateqin rəhbərliyi altında hakimiyyət boşluğu qısa müddətdə aradan qaldırılmış, respublikanın müxtəlif bölgələrində dövlətçiliyə qəsdlər təşkil edən cinayətkar ünsürlər xalqın dəstəyi ilə zərərsizləşdirilmiş, vətəndaş sülhü və həmrəyliyinin təmini istiqamətində ciddi addımlar atılmışdır. Ulu öndərin bu mərhələdə Azərbaycan üçün ən böyük xidməti isə onun de-fakto müstəqil dövlət qurması, dövlətçilik sütunlarını möhkəmləndirməsi, tarixi ənənə və müasirlik əsasında milli inkişaf konsepsiyasını müəyyənləşdirməsi olmuşdur. Bütün bunlar Azərbaycanda ardıcıl və sistemli olaraq hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinə başlamaq imkanı yaratmışdır.

Ölkədə ictimai-siyasi sabitliyin tam bərqərar olması, hüquq qaydalarının möhkəmləndirilməsi, dövlət çevrilişləri cəhdlərinin qarşısının xalqın dəstəyi ilə qətiyyətlə alınması ulu öndər Heydər Əliyevə dövlət quruculuğu istiqamətində praktik addımlar atmağa imkan vermişdir. Azərbaycanın o zamankı məhdud imkanlarını nəzərə alan Heydər Əliyev iqtisadiyyatın bütün sahələrinin paralel inkişafının qeyri-mümkünlüyünü önə çəkmiş, bu sahədə ciddi dönüşə nail olmaq üçün respublikanın malik olduğu zəngin karbohidrogen ehtiyatlarından səmərəli istifadəni vacib saymışdır. Ümummilli lider neft sektoruna xarici sərmayələrin cəlb edilməsi istiqamətində ciddi addımların atılmasını təmin etmiş, 1994-cü ilin 20 sentyabrında "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmuşdur. Xəzər hövzəsində beynəlxalq əməkdaşlığın əsasını qoymuş bu müqavilənin imzalanması ilə respublikamızın gələcək inkişafının fundamental bünövrəsi qoyulmuşdur. "Əsrin müqaviləsi"nin imzalanması ilə Qərb şirkətlərinin Xəzər hövzəsinə külli miqdarda investisiya yatırması Azərbaycana ən müasir innovasiya və informasiya texnologiyalarını gətirməklə yanaşı, demokratik proseslərin, hüquqi-siyasi islahatların sürətlənməsinə, vətəndaş cəmiyyətinin formalaşmasına, habelə Avropanın nüfuzlu beynəlxalq təşkilatları ilə əməkdaşlıq xəttinin güclənməsinə ciddi təkan vermişdir.

Ulu öndərin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkədə vətəndaş cəmiyyəti quruculuğunun hüquqi əsaslarını yaratmış, ölkədə çoxpartiyalılıq əsasında demokratik parlament seçilmiş, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan və sair

azadlıqlar bərqərar olunmuşdur. Ulu öndərin "Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır" deyimi Konstitusiyanın 1-ci maddəsində təsbit edilmişdir.

Əsas Qanunun qəbulu Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət ideallarına sadiqliyini bir daha təsdiqləməklə, onun beynəlxalq aləmdə daha yaxından tanınmasına, ikitərəfli və çoxqütblü əməkdaşlığının dərinləşməsinə də real imkanlar açmışdır. İlk milli Konstitusiyamızda xarici siyasətin, beynəlxalq əlaqələrin konseptual xarakterinin, məqsəd və vəzifələrinin aydın şəkildə əksini tapması da məhz ulu öndər Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində mümkün olmuşdur. Dövlətin idarəetmə sisteminin əsasını təşkil edən Konstitusiyanın 10-cu maddəsinə görə, Azərbaycan başqa dövlətlərlə və beynəlxalq aləmlə münasibətlərini beynəlxalq hüquq normaları və ölkənin maraqlarını nəzərdə tutan prinsiplər əsasında qurur.

Bu prinsipləri rəhbər tutan Azərbaycanın 1996-cı ildən Avrostrukturlara inteqrasiya prosesi sürətlənmiş, nəticədə Avropa Şurası Parlament Assambleyası Bürosunun qərarı ilə respublikamıza 1996-cı il iyunun 28-dən təşkilatda "xüsusi qonaq statusu " ilə təmsil olunmaq imkanı yaradılmışdır. Bu, milli qanunvericiliyin Avropa standartlarına yüksəlməsinə, təşkilatla əlaqə və dialoqun intensivləşməsinə daha geniş imkanlar açmışdır. Eyni zamanda ulu öndər Heydər Əliyevin 8 iyul 1996-cı il tarixli "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında", 20 yanvar 1998-ci il tarixli "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında", habelə 14 may 1999-cu il tarixli "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin təmin edilməsi haqqında" sərəncamları Avropa Şurasına üzvlük üçün tələb olunan hüquqi-siyasi prosedurların sürətlə keçilməsinin işlək mexanizmlərini hazırlamağa imkan vermişdir.

Azərbaycanın hüquqi dövlət və humanizm ideallarına sadiqliyini təsdiqləyən daha bir mühüm hadisə isə Avropa Şurasına üzvlüyə qədər ölüm hökmünün tamamilə ləğvi olmuşdur. Təşkilatın 1983-cü ildə qəbul etdiyi İnsan Hüquqlarına dair Konvensiyanın 6 saylı Protokolunda da ölüm hökmünün yolverilməzliyi birmənalı əksini tapmışdır. 1996-cı ilin mayında Milli Məclis Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsünü dəstəkləyərək yaşı 65-dən yuxarı olanların ölüm cəzasından azad olunması ilə bağlı qərar qəbul etmiş, eyni zamanda ölüm cəzasının tətbiqini nəzərdə tutan cinayətlərin sayı qanunvericilikdə 33-dən 12-yə endirilmişdir. Ulu öndər insanları bağışlamaqla dövlətin, onun rəhbərinin vətəndaşlara humanist münasibətini daim önə çəkmişdir. 1996-2003-cü illərdə 32 əfv fərmanının, 8 amnistiya aktının imzalanması da deyilənləri bir daha təsdiqləyir. Bəzi iddiaların əksi olaraq ölüm cəzasının ləğvi, amnistiya və əfv fərmanlarının imzalanması ciddi tərbiyəvi məzmun kəsb edərək, ağır və xüsusilə ağır cinayətlərin sayının azalmasına gətirib çıxarmışdır. 1993-ci ildən ölüm cəzası üzərində moratoriumun qoyulması, 1995-ci ildə əfv komissiyasının bərpası, 1998-ci ilin 10 fevralında ölüm cəzasının tam ləğvi isə ulu öndərin daxilən yüksək humanizm, insanpərvərlik kimi keyfiyyətlərə malik olduğunu bir daha təsdiqləyir.

1996-2000-ci illərdə respublikamız insan hüquq və azadlıqlarının, habelə demokratik təsisatların inkişafının təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. Bütün bunların nəticəsi kimi 1996-cı ildən Avropa Şurasında "xüsusi qonaq statusu" ilə təmsil olunan Azərbaycan 2001-ci ilin 17 yanvarında qurumun Nazirlər Komitəsinin qərarı ilə Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul edilmişdir. 2001-ci il dekabrın 25-də respublikamızın qanunverici orqanı olan Milli Məclis "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasını ratifikasiya etməklə demokratik ənənələrə, ədalətə, yurisdiksiyası altında olan insanlar üçün əsas hüquq və əsas azadlıqların təminatına yüksək sadiqlik nümayiş etdirmişdir. 15 aprel 2002-ci il tarixdə ratifikasiya sənədi depozitə edilmək üçün Avropa Şurasının Baş Katibinə təqdim olunmuş, bununla da ölkə vətəndaşlarının Avropa İnsan hüquqları Məhkəməsinə müraciət etmək imkanı reallaşmışdır.

Konstitusiyanın qəbulu və Avrostrukturlara inteqrasiya prosesi Avropa ölkələrində hamılıqla qəbul edilmiş standartlara və normalara uyğunluq baxımından Azərbaycan Respublikasında Cinayət, Cinayət-Prosessual, Mülki və Mülki-Prosessual Məcəllənin, habelə məhkəmə-hüquq sistemi ilə bağlı yeni qanunların hazırlanmasının da uğurlu əsasını qoymuşdur. Ulu öndər Heydər Əliyevin 21 fevral 1996-cı il tarixli fərmanı ilə yaradılmış Hüquq İslahat Komissiyası bu və digər qanunların təkmil beynəlxalq təcrübə əsasında, demokratik ideallara uyğun formada hazırlanmasını təmin etmişdir. Komissiya tərəfindən hazırlanmış "Məhkəmələr və hakimlər haqqında" 10 iyun 1997-ci il tarixli, "Konstitusiya Məhkəməsi haqqında" 21 oktyabr 1997-ci il tarixli Azərbaycan Respublikası qanunları, habelə Azərbaycan Respublikası Prezidentinin 18 iyul 1998-ci il tarixli "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətinin təmin edilməsi haqqında" və 1 dekabr 1998-ci il tarixli "Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikası qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə" fərmanları insan hüquq və azadlıqlarının təminatına xidmət edən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində yeni səhifə açmışdır.

BMT-nin 1985-ci il 29 noyabr tarixli qətnaməsi ilə bəyənilmiş "Məhkəmə orqanlarının müstəqilliyinin əsas prinsipləri"ndə və başqa beynəlxalq sənədlərdə təsbit olunmuş normaları hüquqi baxımdan özündə əks etdirən "Məhkəmələr və hakimlər haqqında" qanunda hakim vəzifəsinə seçkilərin test üsulu ilə, şəffaf və obyektiv prosedur əsasında aparılması zəruri tələb kimi qarşıya qoyulmuş, bu fakt məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin edilməsi baxımından ciddi siyasi iradə nümayişi olmuşdur. Qanun əsasında yaradılaraq hakimiyyətin hər üç qolu ilə qarşılıqlı fəaliyyət göstərən yeni müstəqil qurum – Məhkəmə-Hüquq Şurası yaradılmışdır. Şura hakimlərin obyektiv və ədalətli əsaslarla seçilməsi üçün tədbirlər görmüş, 2000-ci ildə müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq hakim vəzifəsinə seçkilərin test üsulu ilə keçirilməsi isə məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin edilməsi baxımından müsbət təcrübənin formalaşmasına yaxşı imkanlar açmışdır.

Ümummilli lider Heydər Əliyevin 1998-ci il 22 fevral tarixində imzaladığı "Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmanla insan hüquqlarının təminatı yönümündə həyata keçirilən tədbirlərin mahiyyəti və konsepsiyası dəqiq şəkildə müəyyənləşdirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 18 iyun 1998-ci il tarixdə təsdiq etdiyi "Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" isə insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmışdır. Dövlət Proqramında əksini tapmış İnsan hüquqları üzrə Azərbaycan Respublikasının Müvəkkili təsisatının (ombudsman) yaradılması, respublikamızın insan hüquqları ilə bağlı mühüm beynəlxalq sazişlərə qoşulması, bu sahədə elmi-tədqiqat institutunun yaradılması, normativ hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlarla əməkdaşlığın inkişaf etdirilməsi və digər mühüm məsələlər ötən illərdə uğurlu həllini tapmışdır.

Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində əldə etdiyi mühüm nailiyyətlərdən biri də Birləşmiş Millətlər Təşkilatı (BMT) və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandum olmuşdur. Bu memoranduma əsasən, BMT insan hüquqlarını dəstəkləmək və müdafiə etmək sahəsində ümumi biliklərin və potensialın Avropa standartlarına uyğunlaşdırılması, prosedur və hesabatlar sisteminin təkmilləşdirilməsi, mülki cəmiyyətin inkişafı və digər məsələlər sahəsində Azərbaycan Respublikası hökuməti ilə birgə tədbirlər həyata keçirmişdir.

Ümumiyyətlə, respublikamızda üçpilləli məhkəmə sisteminin formalaşdırılması, seçki qanunvericiliyinin təkmilləşdirilməsi, Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması, İnsan Hüquqları üzrə Müvəkkil institutunun yaradılması, vətəndaşlara Konstitusiya Məhkəməsinə və Avropa İnsan Hüquqları Məhkəməsinə birbaşa müraciət imkanının verilməsi, Azərbaycan Konstitusiyasında ilk dəfə 2002-ci il 24 avqust tarixdə insan hüquqlarına dövlət təminatını gücləndirən mütərəqqi əlavə və dəyişikliklərin edilməsi, respublikamızın mühüm beynəlxalq konvensiyalara qoşulması ulu öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğu siyasətinin ən qabarıq məqamları kimi diqqəti çəkir.

Ulu öndərin hüquqi və demokratik dövlət quruculuğu xəttini yeni dövrün tələblərinə uyğun davam etdirən dövlət başçısı İlham Əliyev ötən 6 ildə ölkədə insan və vətəndaş hüquq və azadlıqlarının təmini istiqamətində kompleks tədbirlər həyata keçirmişdir. Cənab İlham Əliyevin qanunçuluğa, hüquq qaydalarına, ədalətə bağlı olması, insan və vətəndaş hüquq və azadlıqlarının təminatçısı kimi çıxış etməsi həm də onun zəngin mənəviyyatından irəli gəlir. Bunun nəticəsi olaraq respublikamızda demokratik proseslər sürətləndirilmiş, qanunçuluq bütün səviyyələrdə möhkəmləndirilmiş, sosial ədalət meyarına riayət olunmuş, hakimiyyət bölgüsü prinsipləri qorunmuş, hüquq-mühafizə orqanlarında dövrün tələblərinə cavab verən islahatlar aparılmış, siyasi mühitin liberallaşdırılması istiqamətində davamlı addımlar atılmışdır. Son 6 ildə insan hüquq və azadlıqlarının daha etibarlı təmini baxımından "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramının (2004-2006-cı illər) təsdiq edilməsi haqqında" 3 sentyabr 2004-cü il tarixli, "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" 19 yanvar 2006-cı il tarixli, "Ədliyyə orqanlarının inkişafı haqqında" 17 avqust 2006-cı il tarixli, habelə "Azərbaycan Respublikası məhkəmələri hakimlərinin sayının artırılması və məhkəmələrin ərazi yurisdiksiyasının müəyyən edilməsi haqqında", "Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 28 dekabr 2006-cı il tarixli, "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın təsdiq edilməsi barədə " 28 iyul 2007-ci il tarixli, "Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyasının təsdiq edilməsi haqqında" 27 iyul 2007-ci il tarixli, "Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-

Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması haqqında" 13 dekabr 2007-ci il tarixli fərman və sərəncamları xüsusi vurğulamaq olar.

İnsan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təmini baxımından 2009-cu il martın 18-də Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərin edilməsini nəzərdə tutan ümumxalq referendumunun keçirilməsini xüsusi vurğulamaq lazımdır. Ümumxalq referendumunda ciddi ictimai dəstək almış yeniliklər hüquqi baxımdan Konstitusiyanın bir çox normalarını yeni dövrün tələblərinə uyğunlaşdırmaq məqsədi daşıyaraq, insan və vətəndaş hüquq və azadlıqlarının təmini sahəsində dövlətin məsuliyyətini artırmış, onun üzərinə bir sıra yeni hüquqi öhdəliklər qoymuşdur. Referendumda ictimai dəstək almış hüquqi yeniliklər 1948-ci il tarixli "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi"nə, 1950-ci il tarixli "İnsan Hüquqları üzrə Avropa Konvensiyasına" 1966-cı il tarixli "Vətəndaş və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt"a, 1989-cu il tarixli "Uşaq hüquqları haqqında" Konvensiyanın və s. müddəalarına tam uyğun olmaqla, ölkənin milli qanunvericiliyinin beynəlxalq hüquq, prinsip və normaları ilə uzlaşdırılmasına yönəlmişdir.

Müasir dövrdə demokratiyanın inkişafı, qanunçuluğun təminatı, insan hüquq və azadlıqlarının qorunması həm də sosial rifah, iqtisadi tərəqqi amilləri ilə şərtlənir. Respublikamızın iqtisadi imkanları genişləndikcə, Azərbaycan ümumbəşəri dəyərlərə əsaslanaraq mütərəqqi yolla irəliləməklə, insan hüquq və azadlıqlarının təminatı, demokratikləşmə sahəsində yeni-yeni uğurlara imza atır. Dövlət başçısı Azərbaycanın sosial-iqtisadi inkişafına paralel gedən demokratikləşmə proseslərini bir-birindən təcrid olunmuş şəkildə götürmədən hər iki xətti Azərbaycanın gələcək yüksəlişinin vahid istinad nöqtəsi kimi əsaslandırır. Son illərdə respublikamızın hüquqi dövlət quruculuğu sahəsində fəaliyyət imkanlarının genişlənməsi, ilk növbədə, dinamik iqtisadi uğurlarla şərtlənir. Yeni neft strategiyasının uğurla həyata keçirilməsi, Azərbaycanın bütövlükdə Avropanın enerji təhlükəsizliyində söz sahibinə çevrilməsi, ölkəyə xarici investisiya axınının sürətlənməsi, qeyri-neft sektorunun, sahibkarlığın inkişafı, regionların tərəqqisi, cəmiyyətdə işgüzar maddi fəallığın pozitiv nəticələri ölkənin maliyyə imkanlarının artmasında özünü göstərir.

İqtisadi sahədə keçid dövrünün başa çatması, dövlətçilik sütunlarının möhkəmlənməsi respublikamızda demokratik proseslərin dərinləşdirilməsinə, qanunçuluğun gücləndirilməsinə və liberallaşmaya xidmət edən hüquqi-siyasi və demokratik islahatlar kursunun genişləndirilməsini ciddi tələb kimi önə çıxarır. Respublikamızın aktiv inkişaf fazasına daxil olduğu indiki mərhələdə demokratik normaların ictimai şüurda möhkəmlənməsinə və qəbul edilməsinə daha yaxşı imkanlar yaranmışdır. Əminliklə demək olar ki, dövlət başçısı İlham Əliyevin yeritdiyi çoxşaxəli siyasətin ölkə vətəndaşları tərəfindən birmənalı dəstəklənməsini təmin edən mühüm amillərdən biri də son 6 ildə ölkədə məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının təmini məqsədilə atılan addımlar olmuşdur.

Bütün bunlar göstərir ki, ulu öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğu sahəsində əsasını qoyduğu siyasət bu gün uğurla davam etdirilir. Respublikamız hazırkı qlobal iqtisadi böhran şəraitində belə, sürətli sosial-iqtisadi inkişafını qoruyub saxlayır, böyük infrastruktur layihələri, regional proqramları həyata keçirir, Avropanın enerji təhlükəsizliyində sözünü deyir. Heydər Əliyev ideyalarından qaynaqlanan bu siyasət gələcəkdə daha böyük uğurlara imza atacaq.

**"Xalq qəzeti".-**2009.-13 dekabr.-N 277.-S.3

# MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN BANİSİ, QURUCU VƏ XİLASKAR HEYDƏR ƏLİYEV

**Qafar ƏLIYEV,**
YAP Siyasi Şurasının üzvü, siyasi elmlər namizədi

**Kiminlə, hansı tarixi şəxsiyyətlə müqayisədə olunmasından asılı olmayaraq, Heydər Əliyev bənzərsiz, müqayisə olunmaz tarixi şəxsiyyətdir**

**Bu gün xalqımızın ümummilli lideri, dünya siyasi tarixində özünəməxsus yer tutmuş Heydər Əliyevin vəfatının altıncı ili tamam olur. Xalqımız, bütün Heydər Əliyevsevərlər üçün həmin kədərli gün münasibətilə tanınmış politoloq, siyasi elmlər namizədi Qafar Əliyevin bu müdrik rəhbərin, ulu öndərimizin siyasi fəaliyyətinin elmi-nəzəri təhlilinə həsr olunmuş məqaləsini oxucularımıza təqdim edirik.**

**Bu məqaləni yazarkən məqsədim Heydər Əliyevin bir siyasi lider kimi Azərbaycanda və dünya siyasətində gördüyü işləri sadalamaq deyil, onun bütün siyasi fəaliyyətinin elmi-nəzəri tərəflərini, rəhbərlik və idarəetmə fəlsəfəsini təhlil etmək məqsədini qarşıma qoymuşam. Ancaq hu çətin vəzifənin öhdəsindən gəlmək o qədər asan olmasa da, Heydər Əliyev şəxsiyyətinə olan sonsuz məhəbbət və sədaqətim məni cəsarətlə bu isin altına girməyə ruhlandırır.**

Tarixi şəxsiyyətlər, dövlət xadimləri tarix yaradır. Biz tarixçilərin vəzifəsi isə bu tarixi həqiqi, olduğu kimi yazmaqdan ibarətdir. Əlbəttə, tarixi yazanlar onu yaradanlar qədər əhəmiyyətli olmasalar da, gələcək nəsillər qarşısında onların da üzərinə böyük məsuliyyət düşür.

Heydər Əliyevin həyatı Azərbaycanın respublikaçılıq tarixinin (bu tarixi 1918-ci ildən götürsək) yarıdan çoxunu əhatə edir. Azərbaycanın son 50 illik tarixinin hər bir səhifəsi Heydər Əliyevin iştirakı ilə yaradılıb və yazılıb. Onun 1969-cu ilin 14 iyulunda Azərbaycan rəhbəri seçilməsindən vəfat etdiyi günədək göstərdiyi titanik fəaliyyət Vətənimizin inkişafına, onun çiçəklənməsinə, dünya dövlətləri cərgəsində öz layiqli yerini tutmasına xidmət etmişdir. Həmin illər ərzində Heydər Əliyev Azərbaycanda birinci şəxs olub və dünya siyasətində ən məşhur şəxslərdən birinə çevrilib. Çox az dövlət xadimi, siyasətçi tapılar ki, bu qədər böyük müddətdə öz xalqına, millətinə böyük məhəbbətlə, sevərək və sevilərək rəhbərlik edə bilsin. Heydər Əliyevi təkcə Azərbaycan xalqı, milləti yox, bütün türk millətləri və xalqları, müsəlman dünyası sevir və onunla fəxr edir. Fəqət, təkcə türk və müsəlman dünyasımı? Sovetlər Birliyi tərkibində olduğumuz dövrdə bütün SSRİ xalqları onun şəxsində öz gələcək dövlət başçısını və liderini görürdü. Amerika Birləşmiş Ştatlarında onu Corc Vaşinqtonla, Yaponiyada bu ölkənin qurucuları, məşhur dövlət başçıları ilə, Almaniyada Konrad Adenauerlə, Fransada Şarl De Qolla, Böyük Britaniyada Uinston Çörçillə müqayisə edirdilər. Kiminlə, hansı tarixi şəxsiyyətlə müqayisə olunmasından asılı olmayaraq, Heydər Əliyev bənzərsiz, müqayisə olunmaz tarixi şəxsiyyətdir. Bəs onun bənzərsizliyi nədə idi?

Heydər Əliyev konkret olaraq bir siyasi sistemə, ideologiyaya sığmayan liderdir. İdeologiyalar Heydər Əliyevə sığır, Heydər Əliyev isə onlara sığışmırdı. O, hər bir ideologiyanı öz zəngin və əzəmətli təfəkkür süzgəcindən keçirir, yaxşı cəhətlərini götürüb dövlət və xalq naminə istifadə edir, pis tərəflərini isə atırdı. Özü ideologiyanın əsirinə çevrilmirdi. Ona görə ki, Heydər Əliyev bir siyasi lider və tarixi şəxsiyyət kimi öz ideologiyasını düşünən və yaradan, həmin ideologiya ilə milyonları öz ardınca apara bilən dühalardandır.

İndiyə qədərki tarixi şəxsiyyətləri biz təhlil etsək, onlardan hər birinin bir siyasi sistemin və mövcud konkret tarixi dövrün qəhrəmanı, lideri olduğunun şahidi olarıq. Məsələn, Böyük Pyotr XVIII əsrin əvvəllərində Rusiyanın çarı idi. O, çar Rusiyası hüdudları daxilində, həmin ictimai-siyasi sistemin qanunları çərçivəsində islahatlar apardı. Eləcə də Mustafa Kamal Atatürk. M.K. Atatürk XX əsrin əvvəllərində Osmanlı imperiyasının generalı kimi Türkiyəni xarici qəsbkarların hücumundan qorudu və müstəqil Türkiyə Respublikasını qurdu. Lenin və Stalin sovet dövrünün, Ruzvelt və Çörçill isə kapitalist Qərb dünyasının XX əsrin birinci yarısında yaşamış və fəaliyyət göstərmiş liderləri idilər. Yalnız mənsub olduqları mövcud siyasi sistemin və şəraitin qəhrəmanı olan bu liderlərin bəziləri inqilabçı, bəziləri islahatçı-reformator, bəziləri konservator, bəziləri də diktator kimi tarixdə qaldılar. Amma Heydər Əliyevdə bu liderlərdən heç birinə məxsus olmayan xüsusiyyətlər vardı. Onun özünəməxsusluğu, bənzərsizliyi ondan ibarətdir ki, tarixi şəxsiyyət kimi, o, həm sovet dövrünün, həm də müasir dövrümüzün lideri və qəhrəmanı olub. Bunun sirri nədədir? Nədən Heydər Əliyevin baxışları bir ictimai-siyasi sistemə sığmır? Nədən iki müxtəlif ictimai-siyasi quruluşda, müxtəlif baxışların hökmran olduğu dövrdə o, eyni məharət və bacarıqla, sevgi və istəklə öz xalqına və dövlətinə rəhbərlik edib, eləcə də dünya tərəfindən də eyni dərəcədə qəbul olunub və rəğbətlə qarşılanıb?

**Nədənsə tarixçilər və politoloqlar Heydər Əliyevi bir siyasətçi, dövlət xadimi kimi xarakterizə edərkən onun gördüyü işlərdən, qurub-yaratmaq bacarığından çox bəhs etsələr də, Heydər Əliyevə məxsus olan bu xüsusiyyətlərdən, ideologiyasından, dövlətçilik və idarəetmə konsepsiyasından, təcrübəsindən, elmi-nəzəri, fəlsəfi baxışlarından olduqca az danışırlar.**

Görünür, hələ Azərbaycan tarixçiləri, filosofları, politoloqları Heydər Əliyev ideologiyasının əsas müddəalarını, prinsip və xüsusiyyətlərini tam aşkara çıxarıb, izah etməyə cürət etmirlər. İndi Heydər Əliyev siyasi idarəetmə məktəbinin, iqtisadi idarəetmə məktəbinin, elmi-fəlsəfi məktəbinin mövcudluğundan çox bəhs edirlər. Lakin "Heydər Əliyevçilik" nəzəriyyəsinin konkret nədən ibarət olduğunu dürüst şəkildə, elmi sistem halında yazıb ortaya qoyan bir müəllif hələ ki yoxdur. Bəziləri "Heydər Əliyevçilik" adlanan mükəmməl bir baxışlar sisteminin olduğunu etiraf etsələr də, sadəcə, ad məsələsində, yəni bu nəzəriyyəni necə adlandırmağın daha düzgün variantı ətrafında baş sındırıb bir qərara gələ bilmirlər.

Heydər Əliyevçilik – Azərbaycan xalqının milli mənəvi potensialından, onun tarixi təcrübəsindən qaynaqlanan, milli dövlətçilik ənənələrini real şəkildə dirçəldən və gerçəkləşdirən, ona əbədiyyət qazandıran, müasir və qabaqcıl sivilizasiyalardan istifadə edərək islahatlar və təkamül yolu ilə Azərbaycan xalqını və dövlətini daim müasirləşdirən və yeniləşdirən, bütün dünya azərbaycanlılarını vahid bir ideya ətrafında birləşdirə bilən, sosial-ədalət və humanizm prinsiplərinə söykənərək dövlət daxilində ümummilli-mənəvi birliyə və sosial-iqtisadi rifaha doğru **istiqamət** götürən, dünyanın bütün xalq və millətləri ilə sülh və əmin-amanlıq şəraitində yaşamağa önəm verən mükəmməl fəlsəfi siyasi baxışlar sistemidir.

Bu ideologiyanın əsas prinsip və xüsusiyyətləri ən azı aşağıdakılardan ibarətdir:

**1. Milli dövlətçilik və qanunçuluq;**
**2. İslahatçılıq;**
**3. Azərbaycançılıq və milli-mənəvi dəyərlərə bağlılıq;**
**4. Sosial ədalət və humanizm;**
**5. Beynəlmiləlçilik və bəşərilik.**

Birinci prinsip haqqında danışarkən ilk öncə ulu öndər Heydər Əliyevin belə bir fikrini xatırlatmaq istəyirəm: "Yaxşı hökumət o deyil ki, xalqını xoşbəxt görmək istəyir, yaxşı hökumət o hökumətdir ki, bunu hansı vasitələrlə etməyi bacarır".

**Bu fikri analoji olaraq XX əsr Azərbaycanın dövlət xadimlərinə də şamil etmək olar. Yaxşı dövlət başçısı o şəxs deyil ki, Azərbaycanı müstəqil və xoşbəxt görmək istəyir. O şəxsiyyətdir ki, bu məqsədə hansı vasitələrlə çatmağı, onu reallığa çevirməyi bacarır.**

Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin banisi olmaqla, həm Azərbaycan xalq hərəkatının, həm də Azərbaycan milli azadlıq hərəkatının həqiqi lideridir. O, 70-80-ci illərdə Azərbaycanı qurub-yaratmaqla QURUCU LİDER, müstəqillik dövründə isə Azərbaycanı parçalanmaqdan və məhv olmaqdan xilas edən XİLASKAR LİDER kimi tarixə düşmüşdür.

XX yüzillikdə Azərbaycana rəhbərlik etmiş şəxsiyyətləri bir-bir gözümüz önündən keçirsək görərik ki, onlardan heç biri Heydər Əliyev qədər Azərbaycan xalqına və dövlətçiliyinə xidmət etməyə nail ola bilməyib. Əsrin əvvəllərində, 1918-20-ci illərdə ilk müstəqil respublika qurulduğu zaman Azərbaycanın görkəmli şəxsiyyətləri M.Ə. Rəsulzadə, F. Xoyski, Ə. Topçubaşov və başqaları böyük xidmətlər göstərmişlər. Lakin bu respublikanın ömrü cəmi 23 ay oldu, gərgin daxili ictimai-siyasi və beynəlxalq şəraitdə onlar Azərbaycanın dövlət müstəqilliyini qoruyub-saxlamağı sadəcə olaraq bacarmadılar.

Daha sonra Azərbaycan Sovet Sosialist Respublikası quruldu. Onun da qurulmasında Nərimanovun, Musabəyovun, Ağamalıoğlunun, Sultanovun və başqalarının xidmətləri olmuşdur. N. Nərimanov SSRİ təşkil olunan zaman Zaqafqaziya respublikalarının adından ali hakimiyyət orqanı olan SSRİ Mərkəzi İcraiyyə Komitəsinin 4 həmsədrindən biri idi. O, həm də Rusiya Kommunist Bolşeviklər Partiyasının büro üzvlüyünə namizəd idi. Lakin N. Nərimanov və eləcə də digər Azərbaycan oğullarından heç biri dünyanı idarə edən iki böyük dövlətdən biri olan Sovet İttifaqının hakim partiyası sayılan Kommunist Partiyasının Siyasi Bürosunun üzvü vəzifəsinə qalxa bilməmişdi. N. Nərimanov qəlbən Azərbaycanın müstəqilliyinə tərəfdar olsa da, buna Moskva tərəfindən imkan verilmədi. Lakin Heydər Əliyev Azərbaycanın dövlət başçısı seçildiyi ilk gündən onu addım-addım müstəqilliyə doğru apardı. Azərbaycanın müstəqilliyinin faktiki olaraq siyasi-hüquqi, sosial-iqtisadi və mənəvi-psixoloji bazası Heydər Əliyev tərəfindən 70-80-ci illərdə qoyulmuşdu. 1978-ci ildə qəbul olunmuş Konstitusiyada Azərbaycan dilinin respublika ərazisində dövlət dili kimi işlədilməsinin ayrıca maddə şəklində salınması gələcək müstəqil dövlətin atributlarından xəbər verirdi. Eləcə də C. Naxçıvanski adına hərbi məktəbin təşkili, böyük həcmli. müstəqil profilli zavod və fabriklərin tikilməsi, respublikanı tam idarə etməyə qadir olan peşəkar kadrların hazırlanması, ali məktəb şəbəkələrinin və digər mədəniyyət və təhsil ocaqlarının tikilməsi – bunlar hamısı Azərbaycanı müstəqilliyə aparan yolun başlanğıcı idi.

1987-ci ildə Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək istəyən SSRİ rəhbəri M.S. Qorbaçov ilk öncə yolu üzərindən bu məqsədinə mane ola biləcək yeganə qüvvəni – Heydər Əliyevi hakimiyyətdən uzaqlaşdırdı. Bundan düz 40 gün sonra Dağlıq Qarabağ məsələsi ortaya atıldı və bununla əlaqədar olaraq Azərbaycanda kortəbii xalq hərəkatı başlandı. Bu hərəkat başlayarkən əbəs yerə Moskvada deyilmirdi ki, bütün bu xalq hərəkatının arxasında "Əliyevşina" durur. Ona görə M.S. Qorbaçov öz yaxın ətrafının və Azərbaycanın yerli rəhbərləri olan Ə. Vəzirov, A. Mütəllibov, V. Əliyev və başqalarının köməyi ilə var-gücünü "Əliyevçilik"lə mübarizəyə sərf edirdi. Söhbət azad, müstəqil yaşamaq, öz torpaqlarını heç kəsə vermək istəməyən bir milləti susdurmaqdan və onu Moskvanın iradəsinə tabe etməkdən, oyuncaq rejim qurmaqdan gedirdi.

Onlar 1990-cı ildə 20 Yanvar və 1992-ci ilin fevralında Xocalı hadisələrini, neçə-neçə digər faciələri törətsələr də, torpaqlarımızın bir hissəsini ermənilərə təslim etsələr də, əhalimizin xeyli hissəsini qaçqın və köçkün gününə salsalar da öz məqsədlərinə nail ola bilmədilər. Sadəcə bacarmadılar. Bacarmadılar ona görə ki, Moskvanın planlarına qarşı çıxa biləcək güclü xalq hərəkatı və bu hərəkatın Heydər Əliyev tərəfindən yetişdirilmiş fəal iştirakçısı var idi. Nə qədər ki, Heydər Əliyev Moskvada idi, xalqın nəzərləri Moskvaya - Heydər Əliyevə dikilsə də, əli, səsi ona çatmırdı. 1990-cı ilin Yanvar hadisələri zamanı Heydər Əliyev Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək Sovet rəhbərliyinin yerli əlaltıları ilə birlikdə Azərbaycan xalqına qarşı faciə törətməsi haqqında bəyanat verdi. Onları siyasi və hüquqi cəhətdən cinayət törətməkdə ittiham etdi. Daha sonra Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası üzvlüyündən bəyanatla çıxaraq Azərbaycana – anadan olduğu doğma Vətəni Naxçıvana gəldi. Beləliklə, 1990-cı il iyunun 18-i Heydər Əliyevin Azərbaycana qayıtması, daha sonra Naxçıvana getməsi, orada Naxçıvan MR Ali Sovetinin və Azərbaycan Ali Sovetinin və Azərbaycan Ali Sovetinin deputatı və 1991-ci ilin sentyabrında Naxçıvan Ali Məclisinin sədri seçilməsi ilə Azərbaycanda 1988-ci ildə başlanmış kortəbii xalq hərəkatı 1991-ci ildən başlayaraq ardıcıl, müntəzəm və planlı hərəkata çevrildi və milli azadlıq hərəkatı mərhələsinə qədəm qoydu. Bu hərəkatın lideri xalqın əvəzsiz oğlu Heydər Əliyev idi. Ona görə ki, ümumiyyətlə, son 23 il müddətində – 1969-cu ilin iyulun 14-dən, hakimiyyətə gəldiyi ilk gündən başlayaraq Heydər Əliyev Azərbaycan xalqının şəriksiz və alternativsiz lideri olub. Heydər Əliyev harada, hansı vəzifədə olubsa, xalqın nəzərləri ora dikilib. 1982-ci ilin dekabrında Heydər Əliyev Moskvaya Siyasi Büro üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilərkən, o vaxtkı Dzerjinski adına (indiki Şəhriyar adına mədəniyyət sarayı) sarayda yolasalma mərasimi keçirilirdi. Televiziya ilə birbaşa yayımlanan həmin yığıncaqda iştirak edən insanların həm sevinc, həm

də kədərlə axıtdıqları göz yaşları bir-birinə qarışmışdı. Sevinclə ona görə ki, ilk dəfə olaraq Azərbaycan oğlu belə yüksək vəzifəyə qalxırdı. İnsanları kədərləndirən isə onun doğma respublikanı tərk etməsi idi. Bu, ümumxalq məhəbbətinin bariz nümunəsi idi. Daha sonra 1987-ci ilin oktyabrında Heydər Əliyev Moskvada tutduğu vəzifələrdən azad edilərkən bu hadisəni bütün Azərbaycan xalqı böyük kədər, qəm-qüssə hissi ilə qarşıladı.

Heydər Əliyev digər dövlət başçıları və bəzi ziyalılar kimi sovet dövründə millət, milli dövlət, müstəqillik, milli birlik, milli ləyaqət, milli ideologiya, milli dövlətçilik ifadələrini tez-tez işlətməklə özünə hörmət qazanmaq fikrində olmayıb. Əksinə dərin düşüncəli, müdrik fəaliyyəti ilə addım-addım, nəzərə çarpmadan Azərbaycanı milli müstəqilliyə doğru aparıb. SSRİ dağıldıqdan sonra isə yaranmış tarixi şəraiti nəzərə alaraq müstəqillik bayrağını məhz o özü ilk dəfə olaraq qaldırıb.

**Heydər Əliyev öz çıxışlarında dəfələrlə vurğulamışdır ki, Azərbaycan Respublikasının müstəqilliyi tarixi bir hadisədir. Bu, Azərbaycan xalqının milli sərvəti, milli nailiyyətidir və bu müstəqilliyin əldə olunmasında hər hansı qrupun, hərəkatın, qüvvənin müstəsna xidmətləri olduğunu heç vəchlə qəbul etmək olmaz. Bu səmimi sözlərin doğruluğunu qəbul etməklə bərabər onu deməliyik ki, Azərbaycanın müstəqilliyi, опип qorunub-saxlanması məhz Heydər Əliyevin müstəsna xidmətidir. Bir daha Heydər Əliyevin belə bir fikrini vurğulamaq istəyirəm ki, Azərbaycanın müstəqilliyinin qorunub-saxlanması onun əldə edilməsindən çox-çox çətindir. Son 80 illik müstəqillik tariximizdən çıxarmalı olduğumuz ən əsas ibrət dərsi odur ki, Heydər Əliyev müstəqilliyi həm yaradan, həm də qoruyub-saxlamağı bacaran, onu əbədi edə biləcək dövlət xadimidir.**

Heydər Əliyev Azərbaycan dövlətçiliyinin və müstəqil Azərbaycanın banisidir. Milli dövlətə, Azərbaycan dövlətçiliyinə xidmət Heydər Əliyevin bütün siyasi fəaliyyətinin əsas prinsipini, mahiyyətini və mənasını təşkil edir.

İkinci prinsip olan islahatçılıq prinsipinə toxunarkən onu qeyd etmək istərdim ki, Heydər Əliyev bir siyasi lider kimi islahatçı, yenilikçi və reformatordur. İstər 1970-80-ci illər onun Azərbaycana rəhbərlik etdiyi dövrü, istər Moskva rəhbərliyində olduğu 1982-87-ci illər dövrünü, istər Naxçıvan Ali Məclisinin sədri vəzifəsində işlədiyi 1990-93″-cü illər dövrünü, istərsə də 1993-cü ilin iyununda yenidən hakimiyyətə qayıtdığı

dövrü götürüb təhlil etsək, görərik ki, bu dövrün hər birində Heydər Əliyevin bütün iqtisadi siyasi fəaliyyəti cəmiyyətin ayrı-ayrı sahələrinin yenidən qurulmasından, radikal islahatların aparılmasından ibarət olmuşdur. Bir təşkilatçı lider kimi o qarşıda duran məqsəd və vəzifələri çox aydın gördüyündən həmin məqsəd və vəzifələrə çatmaq üçün lazım olan üsul və vasitələri yaratmağı çox cəsarətlə girişir, lazımi addımlar atır, köhnə iş metodlarını dəyişdirir və yeni dövrün tələblərini təmin edə biləcək kadrları cəsarətlə irəli çəkir. Sadalanan dövrlərin heç birində Heydər Əliyev qarşısına qoyduğu məqsədləri yarımçıq qoymayıb, onların hamısını axıra çatdıra bilib.

**Məsələn, Azərbaycanda aparılan aqrar islahatları keçmiş SSRİ məkanında ən düzgün ən elmi, ardıcıl və demokratik islahatlar kimi qəbul olunur. Keçmiş SSRİ respublikaları özlərində aqrar islahatları aparmaq məqsədilə Azərbaycana onun təcrübəsini öyrənməyə gəlirlər. Bu aqrar islahatların Heydər Əliyev modeli keçmiş SSRİ respublikaları üçün artıq nümunəvi model kimi qəbul olunur. Bu fikirləri bütün digər sahələrə də şamil etmək olar.**

Sadalanan prinsiplərin hər biri haqqında da kifayət qədər geniş şəkildə yazmaq və fikir söyləmək olar. Gələcəkdə Heydər Əliyevin bu prinsiplərinin mahiyyətini açıqlayan istənilən qədər kitablar yazılacaq. Lakin bu gün qətiyyətlə onu söyləmək olar ki, bu gün Azərbaycanda mühüm əhəmiyyətli və dəyişilməz üç faktor var: Heydər Əliyev – xalq -Azərbaycan dövləti faktorları. Heydər Əliyev böyük bacarıqla Azərbaycan xalqının milli mənafelərini əsas götürərək, onun tarixi arzularını reallaşdıraraq əbədiyaşar Azərbaycan dövlətinin bünövrəsini qoymuşdur. Onun yaratdığı müasir Azərbaycan dövləti bir hüquqi demokratik dövlət kimi müasir dünyanın bütün sivil dövlətləri tərəfindən çox hörmətlə qəbul edilir.

**Heydər Əliyev Azərbaycan xalqına xas ola mənəvi dəyərləri daim yüksək qiymətləndirmiş və onları bütün dünyaya tanıtmışdır. "Xalqımız nikbindir, basını heç vaxt aşağı tutmayıb, sınmayıb, əyilməyib, heç vaxt diz çökməyib", – deyən Heydər Əliyevin çücünün, qüdrətinin mənbəyi də məhz elə öz xalqı olub. Heydər Əliyev heç bir zaman öz xalqına kütlə və yaxud "obıvatel" kimi yanaşmayıb. Əksinə, o həmişə öz xalqının milli qürurunu uca tutub və "xalqımız qəhrəman xalqdır", – deyib. O, öz millətinə və xalqına inandığı kimi, 8.5 milyonluq Azərbaycan xalqı da məhz ona inanıb, ona etimad göstərib və bütün taleyini ona etibar edib. Heydər Əliyev isə hər zaman öz xalqının etimadını doğrultmuş bir siyasətçi idi. Biz hamımız, müəllimi Heydər Əliyev olan bir siyasi məktəbin tələbələri zaman-zaman Heydər Əliyevdən öyrənməli, onun bütün fəaliyyət prinsiplərini daim rəhbər tutmalıyıq.**

**"Azad Azərbaycan".-**2009.-13 dekabr.-N.181.-S.3.

# DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ HEYDƏR ƏLİYEVİN ƏN BÖYÜK ARZULARINDAN BİRİ İDİ

**Dilqəm QULİYEV,**
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının prorektoru, professor

**31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür**

**Azərbaycan xalqı 18-ci ildir ki, Dünya Azərbaycanlılarının Həmrəylik Gününü böyük qürur hissi ilə qeyd edir. Bu əziz günün tarixinə bir qədər ətraflı diqqət yetirək. 1988-ci il noyabrın 17-də tələbələrin təşəbbüsü ilə başlanan mitinq tezliklə xalq hərəkatına çevrildi. Ana torpağımıza uzanan xain əllər geri çəkilmək bilmir, bəd əməllərin və məkrlə yoğrulmuş çirkin niyyətlərin, yersiz iradların və amansız ittihamların ardı-arası kəsilmirdi.**

1988-ci ilin əvvəllərində Ermənistanda yaşayan azərbaycanlılara, sözün əsl mənasında, divan tutulurdu. Qışın oğlan çağında ayaqyalın, başıaçıq meşələrə, dağlara qovulan, qar uçqunları altında qalan körpələrimizin, qız-gəlinlərimizin ah-naləsi eşidilmirdi…

…Mərkəzdəki Azərbaycana düşmən qrupların və daxildəki satqınların səyi nəticəsində azərbaycanlıların Qarabağdakı dədə-baba torpaqlarından köçürülməsi də həyata keçirildi, xalq hərəkatı içərisində təfriqə salındı. Nəticədə Azərbaycanın tarixi ərazisi olan Qarabağ itirildi. Bunun ardınca tarixi cinayət – 90-cı ilin Qanlı Yanvar qırğını baş verdi. Rus ordusunun Qorbaçovun başçılığı ilə Bakıda törətdiyi dəhşətli hadisəni bütün dünyaya bəyan etmək üçün Heydər Əliyev Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəldi. Xarici jurnalistlərin qarşısında Heydər Əliyev SSRİ tarixində ilk dəfə olaraq o dövrkü Sov.İKP Mərkəzi Komitəsinin Baş katibi Mixail Qorbaçovu Azərbaycan xalqının qətlində ittiham etdi. Bu çıxışdan sonra isə Heydər Əliyev xalqının ağır və faciəli günlərində Vətənə dönməyi qərarlaşdırdı. Dağılmaqda olan imperiya Heydər Əliyevin şəxsiyyətinə və bu dahi insanın siyasi baxışlarına yaxşı bələd olduğu üçün onun öz doğma Vətəninə dönməsinə böyük maneələr törətməyə başladı. Amma bu dahi siyasətçi bütün maneələri dəf edərək Bakıya dönməyə müvəffəq oldu. Bu dövrdə öz çirkin əməllərini həyata keçirmək istəyənlər Heydər Əliyevin Bakıda siyasi fəaliyyətinə maneələr yaradır və onun ölkəni tərk etməsini istəyirdilər.

İyulun 22-də Heydər Əliyev doğma diyarı Naxçıvana gəldi. Həmin gün axşamüstü şəhərin baş meydanına toplaşan 80 min nəfərlik ümumxalq izdihamı onu böyük sevinclə salamladı.

Beləliklə, ömrünün bundan sonrakı dövrünü xalqı ilə birgə keçirməyi arzulayan ulu öndər Naxçıvanda yaşamağa başladı. 1990-cı ilin sentyabrında Azərbaycan SSR və Naxçıvan MSSR xalq deputatı seçildi. Elə həmin vaxtdan Heydər Əliyevin siyasi fəaliyyətə qayıdışının birinci mərhələsi başladı.

Həmin il noyabrın 17-də Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyası məhz Heydər Əliyevin sədrliyilə öz işinə başlayaraq xalqımız üçün taleyüklü, son dərəcə əhəmiyyətli qərarlar qəbul etdi. Muxtar respublika əhalisi, həmçinin Azərbaycan xalqı tərəfindən böyük sevinc və alqışla qarşılanan bu qərarlar o zamankı respublika rəhbərliyini, necə deyərlər, şoka salmış, SSRİ məkanında böyük əks-səda yaratmışdı.

Bu qərarlara əsasən, keçmiş Sovet İttifaqı tarixində ilk dəfə məhz Naxçıvanda muxtar respublikanın adından "sovet", "sosialist" sözləri çıxarıldı, MR Ali Soveti həmin gündən Ali Məclis adlandırıldı, ay-ulduzlu, üçrəngli bayrağımız 70 illik fasilədən sonra ilk dəfə yenidən parlament səviyyəsində qaldırılaraq muxtar respublikanın dövlət bayrağı kimi qəbul edildi.

O zaman Naxçıvan Muxtar Respublikası ağır vəziyyətdə idi, blokada şəraitində yaşayırdı. Ermənistanla 300 kilometrlik sərhəd boyu erməni silahlı qüvvələri SSRİ müdafiə nazirinin birinci müavini, ordu generalı Varennikovun başçılıq etdiyi rus qoşunları ilə birlikdə Naxçıvana qarşı işğalçılıq müharibəsi aparırdılar. Respublika rəhbərliyi və mərkəzi hakimiyyət Naxçıvanın təhlükəsizliyinə laqeyidlik göstərir, daşnakların təcavüzünə qarşı tədbirlər görmürdülər. Həmin dövrdə – 1989-cu il dekabr ayının 31-də Naxçıvan əhalisi və ziyalıları "sərhəd hərəkatı"na başladılar. Əhali Arazın o tayında yaşayan qohum-əqrəbası və soydaşları ilə görüşmək məqsədilə sərhəd dayaqlarını söküb dağıtdı. Mərkəzin ən sərt tədbirlərinə baxmayaraq, naxçıvanlıların cəsarəti və dəmir iradəsi ilə 1989-cu ilin dekabr ayının 31-də bütün sərhədlər açıldı, insanlar görüşdülər. 70 il "dəmir pərdələr" arxasında totalitar rejimdə yaşayan insanlar, nəhayət ki, bir-birinə qovuşdu, həsrətə son qoyuldu, yaxın qohumlar ünsiyyət yarada bildilər. Bu hadisə Azərbaycan milli tarixində ən böyük hadisə idi. Bu hadisələr zəminində dünya azərbaycanlıları ilə əlaqələrin genişləndirilməsi üçün Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1991-ci il dekabr ayının 16-da hər il dekabr ayının 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilməsi haqqında qərar verdi və onun

rəsmiləşdirilməsi haqqında Azərbaycan Respublikasının Ali Sovetinə qanunvericilik təşəbbüsü ilə müraciət göndərdi. Çox təəssüf ki, bu qərar Heydər Əliyevin təşəbbüsü ilə qəbul edildiyi üçün o vaxtkı rəhbərliyin xalqın taleyinə göstərdiyi biganəlik üzündən kağız üzərində qaldı. Xalqın yekdil təkidi ilə Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra onun xüsusi səyləri nəticəsində dünya azərbaycanlılarını yaxınlaşdırmaq istiqamətində yeni mərhələ başlandı.

1991-ci il sentyabrın 3-də isə Naxçıvanda Ali Məclisin növbəti sessiyası keçirilən gün binanın qarşısında toplaşan minlərlə insanın və deputatların böyük əksəriyyətinin təkidi ilə Heydər Əliyev MR Ali Məclisinin sədri seçildi. Həmin gündən siyasi fəaliyyətə qayıdışın ikinci mərhələsi başlandı.

1991-93-cü illər ərzində muxtar respublikada böyük işlər görüldü. İri təyyarələri qəbul edə bilməsi üçün Naxçıvan aeroportunun yeni uçuş zolağı inşa edildi, İrana sadələşdirilmiş keçid təşkil olundu, Naxçıvanı Türkiyə ilə birləşdirən "Ümid körpüsü" salındı, muxtar respublikanın müdafiəsini və təhlükəsizliyini təmin edən "Qars müqaviləsi" təzələndi, Türkiyə və İrandan elektrik enerjisi, müxtəlif ərzaq məhsulları alındı, nizami ordu quruculuğu həyata keçirildi. Bu illər ərzində Naxçıvan düşmən əhatəsində mətinliklə dayandı, döyüşdü, yaşadı, inkişaf etdi.

Bütün bunlar isə o illərdə Naxçıvanı gözlənilən fəlakətlərdən qorumaq missiyasını yerinə yetirən qeyrətli vətəndaşın, müdrik rəhbərin titanik fəaliyyəti, böyük səyləri və şəxsi nüfuzu hesabına əldə edilirdi.

Həmin dövrdə respublikada hərc-mərclik baş alıb gedirdi, torpaqlar işğal olunurdu, təsərrüfat, sənaye dağılmışdı. Ölkə, demək olar ki, parçalanmaq təhlükəsi ilə üz-üzə idi. Belə bir şəraitdə Azərbaycanın ziyalıları Naxçıvan Ali Məclisinin sədri, dünya şöhrətli, zəngin həyat təcrübəsinə malik Heydər Əliyevə müraciət etdilər: – Ulu öndər bir siyasi partiya yaratsın və bu siyasi partiyanın rəhbərliyini öz üzərinə götürsün. Beləliklə, 1994-cü il oktyabrın 24-də Heydər Əliyev ziyalıların çağırışına, müraciətinə öz müsbət cavabını verdi. Həmin ilin 21 noyabrında Yeni Azərbaycan Partiyası blokada şəraitində olan Naxçıvan şəhərində öz təsis konfransına yığışdı…

Partiyanın ilk sənədlərində möhtərəm Heydər Əliyevin belə bir müdrik kəlamı həkk olunmuşdu: "Yeni, müstəqil Azərbaycan uğrunda!" Bunun ardınca belə bir ifadə də vardı: "Yeni Azərbaycan Partiyası dünənin, bu günün, gələcəyin partiyasıdır". Onu da qeyd etmək istərdim ki, Yeni Azərbaycan Partiyası (YAP) tarixi zərurətdən yarandı. Ümummilli liderimiz Heydər Əliyevin başçılıq etdiyi YAP seçkilərdə böyük üstünlük qazanmaqla xalq arasında nə qədər böyük nüfuza malik olduğunu sübut etdi. Yeni qəbul edilmiş Konstitusiyada insan hüquqları ilə bağlı və demokratiyanın inkişafına stimul verən mühüm müddəalar öz əksini tapdı. Hakimiyyət bölgüsü prinsipi təsbit edildi. Ali qanunverici, ali icraedici və ali nəzarətedici hakimiyyət olmaqla demokratik idarəetmənin əsası olan üç hakimiyyət qolu yaradıldı. Bunun nəticəsidir ki, hazırda respublikamızda qırxdan çox siyasi partiya fəaliyyət göstərir. Cəmiyyətdə tutduğu mövqeyinə, siyasi nüfuzuna, yüksək intellektual səviyyəli kadr potensialına görə bu nəhəng partiya digər partiyalardan əsaslı surətdə fərqlənir.

…Ölkə rəhbərliyinə qayıdışının ilk günlərindən Heydər Əliyev zəkası və gərgin əməyi itirilmiş torpaqlarımızı geri qaytarmaq, ərazi bütövlüyümüzü təmin edib xalqımız üçün əmin-amanlığa və firavanlığa nail olmaq qayəsinə xidmət etmişdir.

Bütün bunları əldə etmək üçün Azərbaycana qüdrətli Milli Ordu, bunun üçün də güclü iqtisadiyyat lazım idi. Güclü iqtisadiyyatı əldə etmək üçün isə döyüş əməliyyatlarının dayandırılmasına, ölkənin nəfəs almasına, xalqın dinc quruculuğa qayıtmasına ehtiyac var idi… Ulu öndərimiz bu çətin işi reallaşdırdı…

Dövrdə dünya azərbaycanlılarını yaxınlaşdırmaq, onların birliyini və həmrəyliyini təmin etmək üçün ümummilli lider Heydər Əliyev dövlət səviyyəsində təsirli tədbirlərin görülməsini vacib vəzifə sayırdı. Bu vəzifəni reallaşdırmaq məqsədilə 2001-ci il mayın 21-də Bakıda Dünya Azərbaycanlılarının birinci qurultayının keçirilməsi haqqında fərman imzalayan ümummilli liderimiz elə həmin ilin 9-10 noyabrında bu tədbirin həyata keçirilməsinə nail oldu. O, yalnız rəmzi birlik gününü təyin etmədi, real birlik istiqamətində də ilk addımları reallaşdırdı.

Qurultayda iştirak etmək üçün dünyanın hər yerindən ölkəmizə gələn həmvətənlərimiz arasında idmançılar və idman xadimləri də az deyildi. Qurultayın gedişində fəaliyyət göstərən "Gənclik və idman" bölməsi öz işini MOK-un yeni inzibati binasında davam etdirdi. ABŞ, Almaniya, Danimarka, Latviya, Rusiya, Belarus, Ukrayna, Gürcüstan və eləcə də ölkəmizin tanınmış idman xadimləri bu tədbirdə iştirak edirdilər.

XX əsrin 70-ci illərinin əvvəllərindən başlayan milli dirçəliş, iqtisadiyyat, mədəniyyət, elm, təhsil və idmanın inkişafı, mənəvi mühitin sağlamlaşdırılması bütövlükdə milli özünüdərkə təkan verdi. 1970-1980-ci illərdə Heydər Əliyev böyük qətiyyət və cəsarətlə xalqın tarixi yaddaşının qorunmasına, mədəniyyətinin tərəqqisinə, Azərbaycanın bütün dünyada tanınmasına çalışırdı. Həmin dövrün mövcud siyasi reallıqları diaspor problemi ilə milli ideoloji zəmində açıq və sistemli şəkildə məşğul olmağa imkan verməsə də, mədəniyyət,

incəsənət, idman, elm sahəsində ciddi iş aparılır, Azərbaycanın nailiyyətləri təbliğ edilir, dünya azərbaycanlılarının Vətənlə əlaqəsinə xidmət edəcək hər bir imkandan istifadə edilirdi.

Heydər Əliyev böyük qürur və təəssübkeşliklə milli mənliyin prioritet məsələ olduğunu dövlət başçısı kimi bütün xalqa bəyan etdi: "Biz gərək milli mənliyimizi həmişə yüksəkdə saxlayaq. Mənim üçün hər şeydən üstün mənim milli mənliyimdir. Milli mənliyim həmişə məni bütün çətin vəziyyətlərdən çıxarıb. Milli mənliyimə görə, istədiyim yolla gedə bilmişəm, istədiyimə nail ola bilmişəm və xalqıma xidmət edə bilmişəm. Ona görə milli mənliyimizi gərək itirməyək…"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan milli həmrəylik ideyalarının bu gün də Azərbaycan dövləti üçün öz aktuallığını saxladığını nümayiş etdirir. Dövlətimizin başçısı çıxışlarının birində demişdir:

"Bu gün Azərbaycan diasporu böyük iqtisadi, mədəni, intellektual qüvvəyə malikdir. Yaşadıqları ölkələrin ictimai-siyasi həyatında onların təsiri getdikcə daha artıq hiss olunur. Məmnunluq hissi ilə qeyd edirəm ki, Müstəqil Dövlətlər Birliyi ölkələrində, Avropada, Amerikada Azərbaycan icmaları və cəmiyyətləri əvvəlki dövrlərlə müqayisədə xeyli səmərəli fəaliyyət göstərirlər. Lakin o da xüsusi vurğulanmalıdır ki, onların geniş imkanları, istifadə olunmamış potensialı vardır və bu potensialdan milli maraqlar naminə maksimum yararlanmaq lazımdır.

Hazırda azərbaycanlıların həmrəyliyinin və mütəşəkkilliyinin güclənməsi, ümummilli ideyalar ətrafında birləşməsi üçün daha geniş imkanlar yaranmışdır. Azərbaycan dövləti nüfuzlu iqtisadi və siyasi gücə çevrilmiş, bütün dünyada yaşayan soydaşlarımız qarşısında parlaq perspektivlər açılmışdır. İndi biz dünya azərbaycanlılarının ümumbəşəri və mili-mədəni hüquqlarının, beynəlxalq konvensiyalarda təsbit edilmiş insan haqlarının qorunmasını təmin etmək üçün daha təsirli vasitələrə malikik. Azərbaycanın siyasi rəhbərliyi dünya azərbaycanlılarının Vətənimizə və xalqımıza mənsubluq hissini gücləndirmək, onların ölkəmizin iqtisadi, mədəni həyatında hərtərəfli iştirakını təmin etmək üçün bütün zəruri tədbirləri görəcəkdir".

Bütün bu nailiyyətlərin əsasında ümummilli lider Heydər Əliyevin formalaşdırdığı siyasi kurs dayanır. Möhtərəm Prezidentimiz İlham Əliyev ümummilli liderimizin müdrik siyasi kursunu layiqincə davam etdirərək, Azərbaycanın dünyanın yüksək inkişaf etmiş ölkələri sırasına çıxması naminə qeyri-adi fədakarlıq nümunələri göstərir.

"**Xalq qəzeti**".-2009.-31 dekabr.-N 292.-S.8.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MİLLİ İQTİSADİ İNKİŞAF MODELİ

**Dünyamalı VƏLİYEV**
iqtisad elmləri namizədi, dosent,
«Azərbaycan» Universitetinin Ümumi iqtisadiyyat kafedrasının müdiri

***Biz respublikamızda hüquqi - demokratik dövlət qurmaq yolu ilə gedirik. Bu, dövlət quruculuğunda, siyasi sahədə strateji yolumuzdur. Bununla çox sıx əlaqədə olan ikinci sahə iqtisadiyyatın demokratik yollarla idarə edilməsidir, yəni iqtisadiyyatda demokratik islahatlar aparılması, bazar iqtisadiyyatı yoludur. Bütün bunlar kompleks şəkildə respublikamızı gələcəyə aparan yollar, istiqamətlərdir.***

***Heydər ƏLİYEV***

XXI əsrin astanasında Azərbaycan Respublikasının müstəqil inkişaf yoluna qədəm qoyması ölkəmizin gələcək sosial-iqtisadi təkamülündə dönüş nöqtəsi oldu və bu təkamül prosesində taleyüklü dəyişikliklərin meydana gəlib genişlənməsi üçün zəmin təşkil etdi. Lakin tarixi təcrübə göstərir ki, zəngin təbii və iqtisadi sərvətlərə malik olan ölkələrdə müstəqilliyin qorunub saxlanılması bəzən onun əldə edilməsindən daha çətin və mürəkkəbdir. Düşmən dövlətlərlə əhatə olunmuş və təcrübəsiz dövlət rəhbərləri ilə idarə olunan Azərbaycanda bu daha da çətin idi. Ölkəmiz yalnız dövlət müstəqilliyini itirmək təhlükəsi ilə qarşılaşmamış, eyni zamanda, real olaraq onun ərazi bütövlüyünə qəsd edilmişdi və üstəlik, daxildən də parçalanmaq təhlükəsi vardı.

Müstəqilliyimiz düşmən dövlətlər tərəfindən açıq-aşkar hərbi təcavüzə və siyasi təzyiqlərə məruz qalırdı. Həm də xalqımız iqtisadi sarsıntılar, çətinliklər girdabına düşmüşdü. Bunun isə kökləri olduqca dərindir. İstehsal olunan məhsullar tələbata cavab vermədiyi üçün anbarlarda yığılıb qalır, strateji məhsullar isə blokada vəziyyətində olduğumuz üçün xarici bazarlara böyük çətinliklə çıxarılırdı. Həm valyuta çatışmazlığı, həm də yolların təhlükəli olması ilə əlaqədar mal idxalı da böyük çətinliklə həyata keçirilirdi. Ölkə əhalisi açıq-aşkar aclıq imtahanına çəkilirdi. Ərzaq anbarları boşalmış, ilkin tələbat mallarının istehsalı xeyli dərəcədə azalmışdı. Dəyirmanlar boşalmışdı.

Elə gün olurdu ki, Qazaxıstandan yola salınmış un gecə Bakıya çatmasaydı, səhəri gün şəhərdə aclıq baş verə bilərdi. Ona görə də dövlət orqanlarının bütün gücü həmin unun Bakıya vaxtında çatdırılmasına yönəldilirdi. Məsuliyyətsiz bəzi vəzifəli şəxslər isə bu çətinlikdən öz ciblərini doldurmaq üçün istifadə edirdilər. 1992-ci ilin qışında ölkəni Avropa Birliyindən alınan 300 min ton, 1993-cü ilin qışında isə Türkiyənin verdiyi yenə 300 min ton əvəzsiz un və taxıl yardımı xilas etdi.

Amma ölkənin əsl xilaskarı 1993-cü ildə xalqın istəyi ilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıtması oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi: "Belə bir çətin anda, çətin dövrdə xalqımızın müdrikliyi bir daha özünü göstərdi. Xalqın təkidi və tələbi ilə ümummilli liderimiz Heydər Əliyev Azərbaycana qayıtdı, xalq onu Prezident seçdi və ondan sonra ölkəmizin inkişaf dövrü başlandı. Bütün xoşagəlməz meyllərə son qoyuldu, sabitlik, ictimai asayiş bərqərar olundu, qeyri-qanuni silahlı dəstələr tərksilah edildi. Bir sözlə, Azərbaycan inkişaf yoluna qədəm qoydu".

Tarixdən yaxşı məlumdur ki, əgər dövlətin, xalqın strateji, perspektiv mənafeyi baxımından onun daxili və xarici siyasətinin ümumiləşmiş konsepsiyasını müəyyən edə bilən şəxsiyyət yoxdursa, bu mənafeyi beynəlxalq forumlarda, yüksək tribunalardan müdafiə edə bilən, dövlətin strateji xəttini xalqa sadə şəkildə bəyan edən və dövlətçiliyi ümumxalq işinə çevirməyi, xalqı öz arxasınca aparmağı bacaran şəxsiyyət yoxdursa və nəhayət, dövlətçiliyi qorumağı, onun müdafiəsini təşkil etməyi əməli sürətdə həyata keçirən praktik siyasətçi-diplomat, sərkərdə və komandan yoxdursa, daxildə əmin-amanlığı, ölkənin iqtisadi inkişafını təmin etməyi üzərinə götürə bilən qurucu, yaradıcı təsərrüfat rəhbəri yoxdursa, həmin ölkənin gələcəyindən nikbin ruhda danışmaq çətin olar.

Dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə malik olan Heydər Əliyevin müdrik daxili və xarici strateji kursu ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial və psixoloji böhran və sarsıntılardan çıxararaq, müstəqilliyin əbədi yolu ilə inamla irəliləməsi üçün möhkəm zəmin yaratdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi (20 sentyabr 2004-cü il ) "Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra gedən proseslər, təəssüflər olsun ki, ölkəmizi uçurum kənarına gətirmişdi. Sosial - iqtisadi, siyasi, hərbi böhran hökm sürürdü. Azərbaycan torpaqları Ermənistanın işğalçı qüvvələri tərəfindən zəbt olunurdu, ölkədə xaos, anarxiya, hərc-mərclik mövcud idi, vətəndaş müharibəsi başlamışdı. O illərdə baş verən iqtisadi tənəzzül ölkəmizi çox çətin vəziyyətə salmışdı.

Daxili çəkişmələrə son qoyulması, siyasi sabitliyin təmin olunması, atəşkəs haqqında razılaşma əsasında erməni təcavüzünün dayandırılması, «Əsrin müqaviləsi»nin bağlanması, balanslaşdırılmış xarici siyasət və qonşu dövlətlərlə münasibətlərin normallaşdırılması bütün diqqəti ölkədə çoxdan yığılıb qalmış və yatmış vulkana bənzəyən daxili sosial-iqtisadi problemlərin həll olunmasına yönəltməyə imkan verdi. Həyat isə bütün kəskinliyi ilə tələb edirdi ki, heç bir ölkənin tarixində rast gəlinmədiyi strateji əhəmiyyətli üç taleyüklü vəzifə eyni zamanda yerinə yetirilsin:

1. Müstəqil, demokratik, hüquqi dövlətin yaradılması və inkişaf etdirilməsi.
2. İnzibati-amirlik sistemi ləğv edilərək, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olunması.
3. Qapalı sosial-iqtisadi sistemin xaricə açılması və açıq qapı siyasətinin tətbiq edilməsi ilə bərabərhüquqlu dövlət kimi qlobal iqtisadi sistemə inteqrasiya edilməsi.

Bu tarixi vəzifələrin hər biri istənilən bir dövlət üçün kifayət qədər ciddi və əhəmiyyətli idi və bütün qüvvələrin bu məqsədlərə səfərbər edilməsini tələb edirdi.

Totalitar sosialist sisteminin süqutu nəticəsində yaranmış yeni müstəqil dövlətlər qarşısında duran problemlərin orijinallığı və tarixdə mövcud olmuş iqtisadi sistemlərin heç birində analoqu olmaması dünya iqtisadi və siyasi ədəbiyyatına bu ölkələrin real durumunu və perspektivlərini əks etdirən yeni bir termin «keçid iqtisadiyyatı ölkələri» terminini də gətirdi. «Keçid» anlayışı yalnız iqtisadi termin deyildir və cəmiyyətin bütövlükdə mövcud siyasi, iqtisadi və sosial quruluşundan imtina edildiyi və hələlik yenisinin yaradılmadığı bir vəziyyəti ifadə edir, cəmiyyətin sosial-iqtisadi strukturunun transformasiya prosesində olduğunu göstərir. Problemin çətinliyi bir də onda idi ki, totalitar rejimin 70 illik despotik hakimiyyəti dövründə cəmiyyət demokratiya, sərbəst bazar iqtisadiyyatı, azad sahibkarlıq, siyasi plüralizm və bu kimi digər çağdaş dəyərlərdən uzaq məsafədə saxlanılmışdır, üstəlik əhalidə uzun illər boyu xüsusi mülkiyyət, bazar iqtisadiyyatı, sahibkarlıq anlayışlarına mənfi münasibət formalaşdırılmışdır. Həyat isə bütün kəskinliyi ilə tələb edirdi ki, cəmiyyət «dövlət, demokratiya, millət, kimlik, ideologiya, siyasət və iqtisadiyyat kimi həyati əhəmiyyətli məsələlərin yeni dən qurulmasını bir vəzifə kimi qarşıya qoysun» və uğurla həll etsin.

Akademik Ramiz Mehdiyevin göstərdiyinə görə: " 1993-cü ilin ortalarında, Heydər Əliyev ölkəyə rəhbərliyə qayıtdıqdan sonra milli transformasiyanın dördüncü mərhələsi başlandı - modernləşdirmə mərhələsinə başlamağın əsası qoyuldu. Onun mahiyyəti Azərbaycanın tənzimlənən bazar iqtisadiyyatına keçməsində və demokratik islahatların həyata keçirilməsində idi ki, bu da beynəlxalq aləmdə ölkənin dünya siyasətinin subyekti kimi tanınması ilə nəticələndi".

Ölkəmizdə müstəqil, demokratik, hüquqi dövlətin möhkəm təməli Heydər Əliyevin memarlığı ilə 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ilə qoyuldu.

Konstitusiya bütün dünyaya bir daha bəyan etdi ki, sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək dövlət hakimiyyətinin yeganə mənbəyi olan Azərbaycan xalqının suveren hüququdur; insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir.

Müstəqillik əldə etmiş dövlətlərin təcrübəsi göstərir ki, suveren sosial-iqtisadi inkişafın müvəffəqiyyəti, ilk növbədə, iqtisadi müstəqilliyin təmin olunmasından və köhnə iqtisadi sistemin düşünülmüş şəkildə yenisi ilə əvəz olunmasından asılıdır. Ona görə də Konstitusiyada birmənalı şəkildə təsbit edilmişdir ki, təbii ehtiyatlar hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına məxsusdur; Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir; Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir. Bütün bunlar əsasında Azərbaycan dövləti xalqın və hər hansı bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır; mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur.

Doğma Azərbaycan dövlətinin qarşısında duran ali məqsədə nail olunması, ilk növbədə iqtisadi sabitliyin də təmin olunmasını tələb edirdi. Çünki 1992-1994-cü illərdə mövcud olmuş hiperinflyasiya iqtisadiyyatın əsaslarını sarsıdır və əhalinin maddi və sosial vəziyyətini getdikcə ağırlaşdırırdı. Birmənalı şəkildə aydın idi ki, həyata keçirilən iqtisadi siyasətin müvəffəqiyyəti genişmiqyaslı sabitləşdirmə tədbirləri ilə inflyasiyanın cilovlanmasından və makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin olunmasından asılıdır. Həyat bütün kəskinliyi ilə iqtisadi islahatların da sürətləndirilməsini tələb edirdi. Ona görə də ölkə iqtisadiyyatında bazar prinsiplərinin bərqərar olmasını təmin etmək üçün onun liberallaşdırılması istiqamətində radikal addımlar atıldı. 1994-1995-ci illərdə xarici ticarət əməliyyatlarının liberallaşdırılmasına başlanmışdır. Xarici ticarət sahəsində liberallaşdırma tədbirlərinin önə çəkilməsi qısa bir zamanda açıq qapı siyasətinin tətbiq edilməsi zərurətindən doğurdu.

İqtisadi liberallaşdırma qiymət islahatlarının da radikal şəkildə davam etdirilməsini tələb edirdi. Bununla əlaqədar olaraq 1995-1996-cı illərdə qiymətlərin formalaşması prosesinin inzibati-amirlik sisteminin qalıqlarından azad olunması başa çatdırıldı. Bununla da bazar iqtisadiyyatının əsas prinsiplərindən birinin, yəni qiymətlərin bazarda sərbəst şəkildə tələb və təklif amillərinin qarşılıqlı təsiri altında formalaşması prosesinin başlanması üçün yol açılmış oldu. Bu proses bazar iqtisadiyyatının digər vacib elementi olan valyuta rejiminin sərbəstləşdirilməsi prosesi ilə tamamlandı.

Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli iqtisadi islahatlar az bir zamanda geniş beynəlxalq dəstək aldı. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı həmin islahatlara dəstək verməyə başladılar. Onlar Azərbaycanda iqtisadi islahatlar haqqında xüsusi proqram hazırladılar və ölkəmizə maliyyə yardımı göstərdilər. Həmin təşkilatlarla sıx əməkdaşlıq şəraitində hazırlanmış sabitləşdirmə proqramına uyğun olaraq iqtisadiyyatın liberallaşdırılmasına yönələn radikal islahatlar dönməz xarakter aldı. Sərt və çevik pul-kredit, büdcə, vergi gömrük siyasətinin aparılması, qiymətlərin, xarici iqtisadi fəaliyyətin və valyuta bazarının liberallaşdırılması və xarici kapitalın cəlb olunması nəticəsində qısa zamanda (1995-1996-cı illər) ölkədə makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin edilməsinə nail olundu. Əgər 1994-cü ildə inflyasiya tempi 1800%-ə, manatın ABŞ dollarına nisbətən dəyərsizləşməsi 1200%-ə çatmışdırsa, artıq 1995-ci ildə vəziyyət əsaslı dəyişməyə başlamış və həmin göstəricilər uyğun olaraq 84, 6% və 3, 6% olmuşdur. Sonrakı illərdə bu göstəricilər daha da yaxşılaşmış, 1996-cı ildə inflyasiya 6, 8%-ə enmiş, manatın isə ABŞ dollarına nisbətən məzənnəsi 8% möhkəmlənmişdir. 1997-ci ildə inflyasiya tempi minimuma enərək cəmi 0, 4% təşkil etmiş, manatın dəyəri isə 5,1% möhkəmlənmişdir. Bu sabitlik dünya maliyyə bazarlarında baş vermiş maliyyə böhranına baxmayaraq 1998-ci ildə də qorunub saxlanılmış, 7,6% səviyyəsində deflyasiya baş vermiş, manatın ABŞ dollarına nisbətən məzənnəsi isə devalvasiyaya uğramamış, sabit olaraq qalmışdır.

İstehlak qiymətlərinin indeksi kəskin şəkildə azaldılmağa başladı. Belə ki, mallar və xidmətlər üzrə qiymət indeksi 1994-cü ildə özündən əvvəlki ilə nisbətən 1763, 5%, 1995-ci ildə 511, 8%, 1996-cı ildə 119, 9%, 1997-ci ildə 103, 7% və 1998-ci ildə isə 99, 2% təşkil etmişdir.

1995-96-cı illərdə yaranmış əlverişli makro-iqtisadi sabitlik şəraitindən istifadə edərək 1997-1998-ci illərdə ölkədə iqtisadi islahatların yeni mürəkkəb mərhələsinə - struktur islahatlar mərhələsinə-başlandı. Xüsusi Dövlət proqramına uyğun olaraq ölkədə genişmiqyaslı özəlləşdirməyə başlanmış, iqtisadiyyatın əsas sahələrindən olan aqrar sferada torpağın xüsusi mülkiyyətə verilməsi istiqamətində radikal islahatlar aparılmış, yeni iqtisadi tələblərə cavab verən maliyyə sektorunun, onun vacib hissəsi olan bank sisteminin formalaşdırılması, dövlət banklarının yenidən qurulması istiqamətində radikal addımlar atılmışdır.

İqtisadi islahatların mühüm istiqamətləri kimi ölkədə özəlləşdirmə proqramının həyata keçirilməsi azad sahibkarlığın və şəxsi təşəbbüskarlığın inkişafına şərait yaratmışdır. Qeyd etmək lazımdır ki, 1998-ci ilə qədər 28 mindən çox kiçik müəssisə özəlləşmiş və demək olar ki, kiçik özəlləşdirmə başa çatmışdı. 1997-ci ildən başlayaraq özəlləşdirmədə həlledici mərhələ olan böyük özəlləşdirməyə - orta və iri dövlət müəssisələrinin səhmdar cəmiyyətlərinə çevrilməsi prosesinə başlanmışdır. Təkcə 1998-ci ildə 800-dən çox orta və iri dövlət müəssisələri səhmdar cəmiyyətlərə çevrilmişlər.

Beləliklə, ölkədə makromaliyyə sabitliyinin təmin edilməsinin, bazar münasibətlərinin formalaşdırılmasının əsas şərti olan iqtisadiyyatın idarə olunmasının bütün istiqamətlərdə liberallaşdırılmasının, bazar iqtisadiyyatının bütün atributlarının yetişməsinə iqtisadi və hüquqi islahatlar aparılması yolu ilə zəruri mühitin yaradılmasının və əsaslı struktur islahatlarının aparılmasının məntiqi nəticəsi olaraq 1989-cu ildən sonra davam edən iqtisadi tənəzzül dayandırıldı və Ümumi Daxili Məhsulun həcminin aşağı düşməsinin qarşısı alındı.

Reallıqlar göstərir ki, iqtisadi tənəzzülün qarşısı nəinki alınmış, hətta 1996-cı ildə onun artımına nail olunmuşdur. 1996-cı ildən 1, 3% olan iqtisadi artım 1997-ci ildə 5, 8%-ə çatmışdır. Real sektordakı bu canlanma Cənub-Şərqi Asiyada və qonşu Rusiyada baş vermiş dərin maliyyə böhranına baxmayaraq 1998-ci ildə daha da inkişaf etmişdir. 1998-ci ilin yekunları respublikanın sosial-iqtisadi inkişafında müsbət meyllərin ildən-ilə möhkəmləndiyini, bu prosesin dönməz xarakter almasını göstərir. Az bir zamanda Azərbaycan iqtisadi inkişafın artım sürətinə görə postsovet respublikaları arasında qabaqcıl mövqeni tutmağa və lider olmağa başladı.

Azərbaycanda iqtisadi artım sürəti 1995-ci ildən başlayaraq MDB üzrə orta göstəricidən xeyli yüksək olmuşdur.

Deyilənləri yekunlaşdıraraq göstərmək lazımdır ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilən strateji kurs Azərbaycanı qlobal zirvələrə doğru gedən ölkələr qrupunda öncül mövqeyə çıxarmışdır. Ölkənin inkişaf səviyyəsində ciddi kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermiş və verməkdə davam edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərdiyi (10 may 2004-cü il) kimi: "Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan beynəlxalq təcriddən çıxdı. Bu gün Azərbaycan beynəlxalq aləmdə çox görkəmli yer tutur, beynəlxalq təşkilatların üzvüdür, onlarda fəal iştirak edir. Bütün dövlətlər tərəfindən tanınır. Azərbaycanın böyük hörməti var. Artıq demək olar ki, regional məsələlərdə Azərbaycanın sözü həlledici sözdür. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir regional layihə həyata keçirilə bilməz. Beləliklə, Azərbaycan region üçün mərkəzə çevrilibdir. Bizim nüfuzumuz artır, gücümüz artır. Bu, bizə imkan verəcək ki, qarşımızda duran bütün məsələləri öz xeyrimizə həll edək. Bütün bunlar Heydər Əliyevin xidmətləridir".

İqtisadi inkişaf səviyyəsi yaxın perspektivdə daha da yüksələcəkdir. İqtisadi inkişaf sürətinin dünyada analoqu olmayan səviyyəsi Azərbaycanın bir çox inkişaf parametrlərinə görə inkişaf etmiş ölkələrlə arasında olan fərqin azalmasına gətirib çıxaracaqdır. Möhkəm iqtisadi təməl demokratik proseslərə dinamizm qazandırmış, əhalinin sosial-rifah halının daha da yaxşılaşdırılması üçün geniş perspektivlər açmışdır.

Beləliklə, iqtisadi inkişafın tarixdə analoqu olmayan Azərbaycan modelinin formalaşması və inkişafı nəticəsində uzunmüddətli perspektivdə Azərbaycanın sosial-iqtisadi inkişaf trayektoriyası yüksək dərəcədə perspektivlidir.

Belə ki:

1. İnzibati-amirlik sistemi ləğv edilərək bazar iqtisadiyyatı prinsipləri bərqərar olmuşdur.
2. Müstəqil, demokratik, hüquqi dövlətin əsasları qoyulmuş və ölkə yüksək inkişaf mərhələsinə daxil olmuşdur.
3. Transformasiya prosesi uğurla aparılmış və özünün son mərhələsinə qədəm qoymuşdur.
4. Qapalı sosial-iqtisadi sistem xaricə açılmış və «açıq qapı» siyasətinin tətbiq edilməsi nəticəsində bərabərhüquqlu dövlət kimi qlobal iqtisadi sistemə inteqrasiya prosesi sürətlənmişdir.
5. Xarici kapital geniş miqyasda cəlb edilərək, resurs amillərindən intensiv istifadə edilir.
6. Ölkədə yaradılmış yeni imkanlar daxili mənbələrin hərəkətə gətirilməsi, iqtisadiyyatın strukturunun yenidən qurulması, informasiya texnologiyalarının sürətli inkişafı və bütün sahələrdə modernləşdirmə xəttinin həyata keçirilməsi məqsədlərinə xidmət edir və bu sahədə ciddi irəliləyişlər mövcuddur.
7. Həyata keçirilən qlobal əhəmiyyətli infrastruktur layihələri Azərbaycanın Avrasiya məkanında mərkəzi nəqliyyat dəhlizinə çevrilməsi üçün geniş imkanlar yaratmışdır.
8. Siyasi müstəqillik iqtisadi müstəqilliklə möhkəmləndirilmişdir. Ölkə tam müstəqil və balanslaşdırılmış iqtisadi siyasət yeritməklə ölkənin milli təhlükəsizliyini və onun mühüm tərkib hissələri olan iqtisadi, enerji və ərzaq təhlükəsizliyini qısa zaman kəsiyində təmin edə bilmişdir.
9. Ölkə qısa tarixi dövr ərzində kapital idxal edən ölkədən ixrac edən ölkəyə, təbii qaz idxal edən ölkədən ixrac edən ölkəyə çevrilmiş, bir çox həyati əhəmiyyətli məhsullarla öz ehtiyaclarmı təmin edir.
10. Ölkənin əlverişli geosiyasi vəziyyətindən məharətlə istifadə edilməsi Azərbaycanın regionda lider dövlətə çevrilməsinə və qabaqcıl dünya dövlətləri arasında mövqenin möhkəmləndirilməsinə səbəb olmuşdur.

Yaradılmış möhkəm iqtisadi təməl siyasi və sosial-mədəni proseslərə də dinamizm verir, Azərbaycanın "mənliyinin dünya miqyasında təsdiq edilməsinə imkan yaradır".

Sürətli iqtisadi inkişaf Azərbaycanın beynəlxalq aləmdə diqqət mərkəzində olmasını təmin etmişdir. Bütün dünyanı sarsıdan qlobal böhran zamanı ölkəmizdə iqtisadi artım sürətinin 9,3% səviyyəsində olması Azərbaycanın milli iqtisadi inkişaf modelinin, onun perspektivli inkişaf trayektoriyasının uğurlu olduğunu əyani şəkildə bir daha sübut etdi. Mürəkkəb böhran dövründə Azərbaycan modelinin uğurunun sirrini cənab İlham Əliyev özü belə izah edir: istehlak qiymətlərinin aşağı salınmasının vacibliyi və inflyasiyaya nəzarət; milli bankların dəstəklənməsi də daxil olmaqla maliyyə monitorinqi, kreditlərə və faiz dərəcələrinə nəzarət; təkcə neft sektoruna deyil, real iqtisadiyyata daimi sərmayə axınının təmin edilməsi; sosial öhdəliklərin qətiyyətlə yerinə yetirilməsinə yönəldilmiş siyasət; sənaye müəssisələrinin fəaliyyət istiqamətinin daxili bazara yönəldilməsi; ərzaq təhlükəsizliyi probleminə daimi nəzarət və sair.

Heç bir şübhə yoxdur ki, keçid dövrünü başa çatdırmış Azərbaycan iqtisadiyyatı bundan sonra daha böyük uğurlar qazanacaqdır.

**«Vergi xəbərləri»**.-2010.-№4.-S.26-32.

## QURTULUŞDAN BAŞLANAN İNTİBAH YOLU

**Fərhad QƏRİBOV**
Millət vəkili

**Tarixdə hər birinin öz yeri olan dahi şəxsiyyətlərimizin istər dövlətçilik ənənələrimizin yaradılması və inkişafı, istərsə də Azərbaycan mədəniyyətinin intibahı ilə bağlı misilsiz xidmətləri fəxr və qürur istinadgahımızdır. Amma bu dahilərimizin içərisində xalqın Ümummilli lideri zirvəsinə çatan yalnız bir nəfər var ki, o da Heydər Əliyevdir. XX əsr Azərbaycan tarixinin ən parlaq siması, qüdrətli şəxsiyyəti olan Heydər Əliyevin siyasi obrazı xalqımızın dövlətçilik şüurunun, tarixin sınağından şərəflə çıxmış bütöv bir idarəçilik məktəbinin, müasir ictimai-siyasi fikrinin ən davamlı keyfiyyətlərinin canlı mənzərəsidir. Heydər Əliyev böyük siyasi xadim, xalqın şəksiz lideri kimi hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. Buna görə də Heydər Əliyev fenomeni həmişə diqqəti cəlb etmiş, dünyanın məşhur dövlət xadimləri onun haqqında heyranlıqla söhbət açmışlar. Heydər Əliyevi Corc Vaşinqton, Franklin Ruzvelt, Uinston Çörçill, Mustafa Kamal Atatürk, Şarl de Qoll, Konrad Adenauer kimi məşhur şəxsiyyətlərlə müqayisə edənlər, siyasət nəhəngi, dünya siyasətinin patriarxı, siyasət şahmatının ustası, virtioz adlandıranlar heç də yanılmırlar. Çünki o, həqiqətən dahi şəxsiyyət idi.**

Heydər Əliyev elə şəxsiyyətlərdəndir ki, keçdiyi həyat yoluna nəzər yetirdikdə xalqımızın dünəni, bu günü, sabahı aydın görünür. Milli özünüdərkin ən yüksək siyasi ifadəsi olan müstəqil dövlət ideyası Azərbaycanın ən yeni tarixində məhz Heydər Əliyevin adı və şəxsiyyəti ilə bağlıdır. SSRİ dövlət təhlükəsizlik sistemində sıravi işçidən rəhbər vəzifəyə kimi yüksəlmiş ilk azərbaycanlı olan Heydər Əliyev sovet rejiminin ideoloji məsələlərə xüsusi həssaslıqla yanaşdığı vaxtlarda Azərbaycanın milli maraqlan üçün mümkün olan bütün işləri gördü. Sovet rejiminin sərt qanunlarına baxmayaraq, Azərbaycanda böyük iqtisadi, elmi və ədəbi-mədəni inkişafa, müstəqil düşüncəyə yol açdı. Qısa zaman kəsiyində Azərbaycan ittifaq tərkibində o zaman üçün müasir iqtisadi potensiala malik respublikaya çevrildi. Heydər Əliyevin rəhbərliyi ilə XX əsrin 70-ci illərindən elə bir tarixi bünövrə yaradıldı ki, onun möhkəm dayaqları üzərində gələcəkdə müstəqil Azərbaycanın qurulması, yeni tarixinin əsasının qoyulması labüd idi. Xalqımızın dahi oğlunun sovet dövründə Azərbaycan üçün gördüyü bütün işlər böyük gələcəyə hesablanmışdı və bu potensial müstəqillik illərində ölkəmizin başlıca dayaqlarını təşkil etdi.

Müstəqilliyimizin ilk illərində Azərbaycanda cərəyan edən xaotik proseslər təsdiq edirdi ki, yalnız möhkəm siyasi iradəsi olan bir rəhbər ölkənin başı üstünü almış bütün təhlükələrdən qurtarmaq, dövlət müstəqilliyimizi yaşatmaq kimi ağır bir missiyanın öhdəsindən gələ bilər. 1993-cü ildə AXC-Müsavat cütlüyünün dövlət idarəçiliyindəki kobud səhvlərinin məntiqi nəticəsi olaraq ağır sosial-iqtisadi gərginliyin pik həddinə çatdığı, ölkə vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qaldığı, torpaqlarımızın itirildiyi, bir sözlə, Azərbaycan dağılmaq və parçalanmaq təhlükəsi ilə üzləşdiyi bir vaxtda xalqımızın Ümummilli lider Heydər Əliyevə üz tutması təsadüfi deyildi. Çünki ölkədəki hərc-mərcliyi, itaətsizliyi, anarxiyanı, siyasi çəkişmələri, Gəncədə başlamış qardaş qırğınını, hərbi xəyanəti, qanunsuz silahlı dəstələrin Bakıya yürüşünü yalnız o böyük insan aradan qaldıra bilərdi. O zaman vəziyyəti düzgün qiymətləndirən xalqın tələbi Bakıya - ölkə rəhbərliyinə Heydər Əliyevin gəlməsi idi. Heydər Əliyevə ünvanlanan müraciətlər təkcə maddi-mənəvi iztirablara məruz qalan bir xalqın sadəcə vəziyyətdən çıxış yolu deyildi. Bu həm də Azərbaycan dövlətçiliyinin yaşaması, hələ kövrək olan müstəqilliyimizin qorunması üçün qəbul edilən tarixi ümumxalq qərarı idi. O ağır günlərdə ölkəni ancaq Heydər Əliyev dühasının xilas edəcəyinə bütün Azərbaycan xalqı qəlbən inanırdı. Heydər Əliyev də çox gözəl bilirdi ki, o ağır, qarışıq günlərdə özünü qabağa verməsə, kövrək olan müstəqillik əldən gedəcək, dövlətçilik məhv olacaq, xalq isə didərgin düşəcək. Ulu öndərin böyüklüyü həm də onda idi ki, hakimiyyətin ona qarşı həyata keçirdiyi təxribatları, qarayaxma kampaniyasını bir kənara qoyub o ağır və keşməkeşli günlərdə xalqın köməyinə tələsdi. Ulu öndər Heydər Əliyev sonralar həmin vaxtları xatırlayaraq deyirdi: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, o vaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü... Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

1993-cü il iyunun 9-da Heydər Əliyevin Bakıya gəlməsi xəbəri xalq tərəfindən sevinclə, ruh yüksəkliyi ilə qarşılandı. Bakıya gəldikdən sonra parlamentə sədr seçilmək barədə iqtidarın və deputatların xahişini qəbul etməyən Heydər Əliyev Gəncədə yaranmış vəziyyətlə yerində tanış olmaq üçün ora yola düşdü, döyüş

meydanına çevrilmiş hərbi hissələrin ərazisini gəzdi, şəhər sakinləri, hərbi qulluqçularla görüşüb söhbət etdi. Heydər Əliyevin bu müdrik addımı xalqda gələcəyə bir inam yaratdı.

Dövlətçiliyimizə qənim kəsilən dairələrin xaos yaradıb Azərbaycanı parçalamaq planları puça çıxdı. Xalqın böyük inam bəslədiyi Heydər Əliyevin ətrafında birləşməsi Azərbaycan dövlətçiliyinin və xalqının qanına susamış bütün planların üstündən birdəfəlik xətt çəkdi.

Heydər Əliyev 1993-cü il iyunun 15-də yekdilliklə Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Həmin gün parlamentin tarixi iclasında Heydər Əliyev çıxış edərək Ali Sovetin Sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi özünün əsas vəzifələrindən biri hesab etdiyini bildirdi: "Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni öz üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm. Azərbaycan Respublikasının dövlət müstəqilliyi müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün sonrakı hissəsini harada olursa olsun yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm".

Heydər Əliyevin ölkənin ali qanunverici orqanına sədr seçilməsi sözün əsl mənasında siyasi qayıdış idi. Onun xilaskar missiyası ilə gəlişi dövlətçilik tariximizin yeni şanlı bir səhifəsinin başlanğıcı oldu. 15 iyun tarixə Milli Qurtuluş Günü kimi daxil oldu. Azərbaycan Respublikasının Milli Məclisi Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı gününü 1997-ci il 27 iyun tarixli qərarı ilə rəsmi olaraq Azərbaycan xalqının Milli Qurtuluş Günü elan etdi. Azərbaycanın işıqlı gələcəyinin təməli qoyulduğu 15 iyun haqlı olaraq əsl qurtuluş, xalqımızın fəlakətlərdən xilas olub qüdrətli bir dövlətin bünövrəsinin qoyulduğu gün kimi ən müasir tariximizə qızıl hərflərlə yazıldı. Milli Qurtuluş Gününü qədirbilən xalqımız hər zaman əziz və qiymətli tutur, hər il böyük sevinc və fərəh hissi ilə qeyd edir. Bu müqəddəs günü tarixə yazan isə Ümummilli lider Heydər Əliyevdir.

Bu parlaq dühanın xilaskarlıq missiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən, Xalq Cümhuriyyətinin acı taleyini yaşamaq aqibətindən qurtuldu. Milli Qurtuluş yeni, yüksək intibaha açılan qapı kimi tariximizi şərəfləndirdi. Ulu öndərin müdrikliyi, uzaqgörənliyi, qətiyyəti və dövlətçilik istedadı sayəsində Azərbaycan tezliklə təlatümlərdən, sarsıntılardan uğurla çıxaraq gələcəyə inamla baxan bir dövlətə çevrildi.

Heydər Əliyev də özünün fəaliyyəti, tarixin gedişinə güclü təsir göstərən əzəməti və qüdrəti ilə 1993-cü ilin iyununda bir daha sübuta yetirdi ki, dövründən asılı olmayaraq, tarixin həqiqi yaradıcısı məhz nəhəng şəxsiyyətlərdir. Onun tarixi qayıdışı obyektiv zərurət, sosial sifariş, xalqın istək və arzularının ifadəsi idi.

1993-cü ilin iyun ayından ölkədəki vəziyyətin nəzarət altına alınmasına nail olan Heydər Əliyevin həmin il oktyabrın 3-də Prezident seçilməsi ilə Azərbaycan dövlətçiliyini gözləyən faciələrin qarşısı alındı. Prezident seçkiləri ərəfəsində Ali Sovetin Sədri kimi həm də Azərbaycan Prezidentinin səlahiyyətlərini həyata keçirən Heydər Əliyev öz seçkiqabağı proqramında belə bəyan edirdi: "Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan Respublikası demokratiya yolu ilə getməlidir, heç vaxt totalitar sistemə, kommunist rejiminə qayıtmamalıdır. Azərbaycan Respublikasında siyasi plüralizm hökm sürməlidir. İnsan, söz, din, dil azadlığı - bunların hamısı bərqərar edilməlidir. İnsan hüquqlarının qorunması bizim əsas məqsədlərimizdən biri, dövlət orqanlarının, hüquq-mühafizə orqanlarının əsas vəzifələrindən biri olmalıdır... Biz iqtisadiyyatda köklü islahatlar aparıb, bazar iqtisadiyyatına keçməliyik. Bizim borcumuz bütün Azərbaycanın simasını dəyişdirməkdir, Azərbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplərlə yaşayan bir dövlətə, cəmiyyətə çevirməkdir, Azərbaycan vətəndaşlarının gələcək həyatını azadlıq, demokratiya yolu ilə təmin etməkdir. Biz bu yolun yolçusuyuq, bu yolla da gedəcəyik. Bu yol xalq yoludur". Bu, həm də Azərbaycan dövlətçiliyinin yaşayacağına və möhkəmlənəcəyinə bir əminlik idi.

Artıq o günlərdən 17 il ötür. Aradan keçən bu illər təkcə sözügedən qayıdışa bəslənən ümidlərin özünü doğrultması ilə yadda qalmadı, həm də Azərbaycanın gələcək inkişafının etibarlı bünövrəsi qoyuldu. Heydər Əliyev tarixi qayıdışı ilə xilaskarlıq missiyasını ləyaqətlə yetirə yetirdi. Eyni zamanda, Azərbaycanın indiki sürətli inkişafının strategiyası, bütün sahələrdə həyata keçirilən köklü islahatlar da öz başlanğıcını milli qurtuluşdan götürdü. 1993-cü ildən sonra cərəyan edən siyasi-ictimai, iqtisadi proseslər, bütün sahələrdə inkişafa doğru dönüş yaradılması həqiqətən də ölkəmizə milli mənafelərimizi əldə rəhbər tutan xarizmatik və qətiyyətli liderin, əsl siyasətçinin rəhbərlik etməsindən xəbər verirdi. O siyasətçidən ki, üzləşdiyi çətinliklərə, maneələrə, dövlət çevrilişi cəhdlərinə baxmayaraq, Azərbaycanı parçalanmaqdan, vətəndaş müharibəsi təhlükəsindən qurtardı. Heydər Əliyevin Prezident seçilməsi isə Azərbaycanda tamamilə yeni bir ictimai-siyasi münasibətlər sisteminin bərqərar edilməsinə, nəhayət, ümumxalq maraqlarının gerçəkləşməsinə xidmət edən proseslərin start götürməsinə səbəb oldu, xalqın özünə inamını, sabaha nikbin baxışlarını bərpa etdi,

dövlətçiliyimizin əsasını təmin edən ictimai-siyasi sabitliyin əsasını qoydu. Azərbaycan yalnız Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirə bildi.

Ümummilli lider Heydər Əliyevin siyasəti nəticəsində Azərbaycan beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsindən sovuşdu, dünya dövlətləri arasında özünə layiqli yer qazandı, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında dönüş yarandı, sivil və hüquqi dövlət quruculuğunun əsası qoyuldu. Ölüm hökmü və senzura ləğv edildi, müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olundu, milli-mənəvi sərvətlərimizə - dilimizə, dinimizə, tarixi irsimizə qayğı dövlət siyasəti səviyyəsinə qaldırıldı.

Ulu öndərin 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonra irəli sürdüyü dövlətçilik konsepsiyası mahiyyət etibarilə Azərbaycanın tarixi ənənələrini və müasir Avropa dəyərlərini özündə birləşdirən yeni inkişaf modeli kimi özünü doğrultmuşdur. İctimai-siyasi sabitliyi və sosial-iqtisadi inkişafı bu modelin əsas dayağına çevirən Heydər Əliyev cəmiyyətdə dayanıqlı milli birliyə nail olmaq üçün hər şeydən öncə insan hüquq və azadlıqlarının maksimum təminatı məsələsinə xüsusi diqqət yetirmişdir. Ulu öndərimiz özünəməxsus müdrikliklə bəyan etmişdir ki, siyasi sabitliyə nail olmadan yeni idarəetmə sisteminə keçidi reallaşdırmaq, bazar iqtisadiyyatı və demokratiya kimi fundamental prinsiplərin tətbiqinə nail olmaq mümkün deyil. Heydər Əliyev Azərbaycanda milli dövlətçiliyin prioritet inkişaf istiqamətlərini müəyyənləşdirərkən xalqın milli mentalitetinin səciyyəvi cəhətlərini də nəzərə almışdır.

Heydər Əliyev özünün zəngin iqtisadi bilik və təcrübəsi əsasında Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirmiş, bu sahədə mövcud problemlərin həlli yollarını göstərmişdir. Ümummilli liderimiz mərkəzi planlaşdırma və bölgü prinsiplərinin hakim olduğu ictimai-iqtisadi formasiyadan azad bazar iqtisadiyyatına optimal keçid modelini irəli sürmüş və həyata keçirmişdir.

XX əsrin sonlarında Azərbaycan-da dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin uzaqgörən və zəngin siyasi fəaliyyəti sayəsində mümkün oldu. Heydər Əliyev öz əməlləri ilə, xalqa əvəzsiz xidmətləri ilə tariximizdə əbədiyaşarlıq qazandı. Ölkəmizin inkişafı üçün onun hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil dövlətimizin möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edəcəkdir. Zəmanəmizin ən görkəmli siyasi xadimi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə Azərbaycanın yeni tarixində dövlətçiliyimizin möhkəmlənməsinə, müstəqilliyimizin əbədi olmasına verdiyi töhfələrə görə xalqımızın Ümummilli liderinə çevrildi.

Heydər Əliyev xalqımızın qürur mənbəyi, qazandığımız bütün nailiyyətlərin səbəbkarı, uğurlu gələcəyimizin təməlini qoyan millət atasıdır. Müstəqil Azərbaycan və onun əldə etdiyi uğurlar Ümummilli liderimiz Heydər Əliyevin fəaliyyətinin şah əsərləridir. Ulu öndərimiz qeyd edirdi: "Yaratdığım hər bir şey mənim üçün əzizdir. Zavod da, fabrik də, elektrik stansiyaları da, yol da, körpü də, ev də, bina da, saray da - hər bir şey. Amma mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır". Bu müqəddəs amala bütün həyatı boyu sadiq qalan Heydər Əliyev elə böyük vətənpərvər, müdrik dövlət xadimi idi ki, xalqının və dövlətinin müqəddəratını yalnız qısa dövr üçün düşünmürdü. Bütün parametrlərə görə haqlı olaraq dünyanın ən böyük azərbaycanlısı adını daşımağa layiq olan Heydər Əliyev Azərbaycanın nailiyyətlərinin, zəfərlərinin sonrakı onilliklərdə də davam etməsi, müəllifi olduğu milli inkişaf strategiyasının bəhrələrinin gələcək nəsillər üçün də daha əlamətdar olması naminə fədakarlıqla çalışmışdır.

Ulu öndərin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasət bu gün onun layiqli varisi - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilir. Cənab İlham Əliyevin siyasi xəttinin bir neçə aspektinə diqqət yetirməklə onun Azərbaycan dövlətçiliyinin inkişafına, ölkənin milli maraqların müdafiəsinə və iqtisadiyyatın inkişaf etdiril-məsinə nə kimi töhfələr verdiyini görmək olar. İlk növbədə Prezident İlham Əliyev Ulu öndərin başladığı neft strategiyasını uğurla davam etdirdi. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin inşasının başa çatdırılması ilə Prezident İlham Əliyev Azərbaycanın bölgədəki lider mövqeyini daha da möhkəmləndirdi. Bakı-Tbilisi-Qars yeni dəmir yolu xəttinin çəkilişinin başlanması isə regionun lider dövləti olan Azərbaycanın xarici maddi və mənəvi dəstək olmadan belə iri maliyyə tutumlu layihələrin reallaşdırılmasına qadir olduğunu göstərdi. Bütün bunlar həm də Azərbaycanın iqtisadi müstəqilliyini bütün dünyaya nümayiş etdirdi.

Prezident İlham Əliyevin əzmkarlıqla davam etdirdiyi çoxşaxəli islahatlar kursu respublika iqtisadiyyatında böyük uğurlara zəmin yaradıb, hər bir vətəndaşın həyatında irəliləyişlərə səbəb olub. Uğurlu siyasət, bütün sahələrdə qazanılan nailiyyətlər həm də Azərbaycanın beynəlxalq imicini daha da gücləndirib. Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini aydın görən xalqımız bu siyasəti yüksək dəyərləndirir və Prezidentin ətrafında daha sıx birləşməklə Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri sırasında layiqli yer tutmasına nail olmağı Ulu öndərin ruhu qarşısında mənəvi borc sayır. Heydər

Əliyevin xilas etdiyi Azərbaycan Ulu öndərin ideyalarından güc alaraq bu gün gələcəyə doğru inamla addımlayır.

**"Milli Məclis".**-2010.-№6.-S.24-31.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV GƏNCLİYİMİZİN XİLASKARIDIR

**Elşad Mirbəşiroğlu**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının
"Politologiya və siyasi idarəetmə" kafedrasının müəllimi, siyasi elmlər namizədi

**2 fevral – Azərbaycan Gənclər günü Ümummilli lider Heydər Əliyevin gənclərə olan hədiyyəsidir**

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli istəyilə ikinci dəfə ali siyasi hakimiyyətə qayıtması ilə Azərbaycan dövləti siyasi fiaskodan xilas oldu. Böyük əminliklə qeyd edirəm ki, Ümummilli liderin möhtəşəm qayıdışı ilə həm də Azərbaycan gəncliyi xilas oldu. Müstəqilliyinin ilk illərində Azərbaycan dövlətçiliyinin taleyi sual altında idi. Bir tərəfdən günü-gündən kəskinləşən erməni təcavüzü, dünyanın supergüclərinin regionda barışmaz maraqlarının toqquşması, digər tərəfdən isə, daxili-siyasi xaosun pik həddə çatması ölkənin suverenliyi üçün ciddi təhdidlər yaratmışdı. O vaxtkı AXC-Müsavat hakimiyyətinin davranışlarından aydın sezilirdi ki, dövlət idarəçiliyi sahəsində tamam səriştəsizdirlər və belə şəraitdə ölkənin müstəqil inkişafını təmin edə bilməyəcəklər.

Ölkədəki qeyri-leqal, siyasiləşmiş silahlı qruplaşmaların mövcudluğu və onların hakimiyyət və nüfuz uğrunda qeyri-sivil mübarizəsi ağır olan vəziyyəti daha da ağırlaşdırırdı. Həmin dövrdə Azərbaycan gəncliyinin səmərəli inkişafı məsələsi diqqətdən tamam kənarda qalmışdı, onlardan ancaq mənfur niyyətlərin həyata keçirilməsi istiqamətində bir vasitə kimi istifadə edilirdi. Gənclərin böyük əksəriyyəti ayrı-ayrı hakimiyyət hərisləri tərəfindən yaradılmış qanunsuz silahlı qruplaşmalara cəlb edilmişdi. Bu, bütövlükdə xalqın gələcəyinə böyük zərbə idi. Çünki bu, bir aksiomadır ki, dünyanın hər yerində dövlətçiliyin, müstəqilliyin möhkəmləndirilməsi, davamlı sosial-iqtisadi inkişaf fonunda gələcəyin etibarlı təminatı intellektual səviyyəsi və hərtərəfli potensialı yüksək olan kadrların yetişdirilməsindən, cəmiyyətin bütün sahələrində gənclərin yaxından iştirakının təmin edilməsi ilə onların imkanlarından səmərəli istifadə olunmasından əhəmiyyətli dərəcədə asılıdır. Xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gələn Ümummilli lider Heydər Əliyev bütün sahələrdə meqainkişafa nail olduğu kimi, gənclər siyasəti sahəsində də ciddi işlərin reallaşdırılmasının vacibliyini müəyyənləşdirdi. Bu istiqamətdə böyük addımlar atıldı.

Bu gün biz Azərbaycan gəncliyinin ölkəmizin ictimai-siyasi, sosial-mədəni həyatında yaxından fəal iştirakına, həmçinin, plüralist demokratiyanın mövcudluğunun əsas şərtlərindən olan vətəndaş cəmiyyətinin formalaşmasında gənclərin də öz dəyərli töhfələrini vermə imkanlarının yaradılmasına görə məhz Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevə borcluyuq. Biz gənclər üçün belə geniş imkanlar əsası Heydər Əliyev tərəfindən qoyulan, bu gün isə cənab Prezident İlham Əliyev tərəfindən dövrün tələblərinə uyğun yeni-yeni elementlərlə mükəmməlləşdirilərək davam etdirilən uğurlu gənclər siyasəti sayəsində yaradılıb. Azərbaycanda həyata keçirilən gənclər siyasəti hər şeydən öncə fərdi qaydada hər bir gəncə cəmiyyətdə özünü təsdiq etməsi, yüksək bilik və bacarıqlar qazanması, dövlətinin dəyərli vətəndaşına çevrilməsi üçün unikal zəmin və şərait yaradıb. Çünki həyata keçirilən gənclər siyasətinin leytmotivini Azərbaycan Respublikasının daha da inkişaf etməsi, dünyanın aparıcı dövlətlərindən birinə çevrilməsi istiqamətində gənclərin potensialından geniş və səmərəli istifadə edilməsi, bunun üçün gənclərə münasib şəraitin yaradılması və hər şeydən öncə yüksək intellektli, bacarıqlı və ali mənəvi dəyərlərə malik Azərbaycan gəncliyinin formalaşdırılması təşkil edir. Bu siyasətin uğurlu, sarsılmaz bünövrəsini Ümummilli lider Heydər Əliyev qoyub.

Ali siyasi hakimiyyətə ikinci dəfə qayıdışının elə ilk illərindəcə hər bir Azərbaycan gənci Onun sonsuz qayğısını və dövlətin himayəsini hiss etməyə başlayıb. Belə ki, 1995-ci ilin mart ayında o böyük qəlbli dahi insanın gənclərlə yaddaşlarda daim qalacaq ilk görüşü oldu. Bu görüşdə Ümummilli lider hər zaman Azərbaycan gənclərinin yanında olacağını, onların dəyərli vətəndaş kimi yetişməsi üçün əlindən gələni edəcəyini bildirdi. O, qeyd etdi ki, hər şeydən öncə dövlət gənclərin sağlam ruhda tərbiyə alması üçün tədbirlər həyata keçirməlidir. Ümummilli lider dedi və etdi. 1996-cı ilin fevral ayının 2-də Ümummilli liderin təşəbbüsü ilə Azərbaycan gənclərinin ilk forumu keçirildi. Bu forumun keçirilməsi hər bir azərbaycanlı gəncin həyatında olduqca əlamətdar hadisə idi. Forumda Azərbaycanda həyata keçirilməsi nəzərdə tutulan genişmiqyaslı gənclər siyasətinin dəqiq konturlarının müəyyənləşdirilməsi gənclərdə sabaha böyük ümidlər yaratdı, hər bir gənc Ümummilli lider Heydər Əliyevin simasında etibarlı himayədarının olduğunu dərk etdi. Belə ki, Azərbaycanın müxtəlif bölgələrindən olan 2 minədək gəncin iştirakı ilə keçirilən forumda hər şeydən öncə Vətənini sevən, milli dəyərləri və dövlətçilik prinsiplərini hər şeydən uca tutan, yüksək bilik və bacarıqlara malik gənc nəslin yetişdirilməsi ilə bağlı ayrı-ayrı dövlət orqanlarının üzərlərinə düşən vəzifələr və məsuliyyət müəyyənləşdirildi.

Bununla yanaşı, Azərbaycan Gənclərinin I Forumu hər bir gəncin öz üzərinə düşən vəzifələri dərk etməsi baxımından da əhəmiyyətli idi. Bu forum və Heydər Əliyevin Azərbaycan gənclərinin hərtərəfli

inkişafının təmin edilməsi istiqamətində atdığı növbəti addımlar gənclərin gələcək inkişafına böyük stimullar yaratmış oldu. Gənclərin I Forumunda qəbul edilmiş qətnaməyə əsasən, II forum 1999-cu il martın 2-3-də keçirildi. Forumun işində yaxından iştirak edən Ümummilli liderimiz Heydər Əliyev gənclərə, öz bilik və bacarıqlarını reallaşdıra bilmələri üçün hər cür şəraitin və imkanların yaradılmasının, müstəqil Azərbaycan dövlətinin quruculuğu prosesində onların potensialından səmərəli istifadə etməyin vacibliyini bir daha səsləndirdi və bütün dövlət orqanlarına bununla bağlı göstəriş və tövsiyələrini verdi.

Beləliklə, ən yüksək mənəvi, intellektual və fiziki keyfiyyətlərə malik olan Azərbaycan gəncliyinin formalaşması istiqamətində həyata keçirilən dövlət siyasətində müdhiş bir dinamiklik hiss edilirdi. 1997-ci ildə Ulu öndər fevralın 2-nin Azərbaycan Gəncləri günü elan edilməsi ilə bağlı Fərman imzaladı. Bununla, Heydər Əliyev Azərbaycanda həyata keçirilməsinə start vermiş olduğu gənclər siyasətinin özülünü daha da möhkəmləndirdi. Ümummilli lider böyük müdrikliklə müəyyənləşdirmişdi ki, digər sahələrdə olduğu kimi, gənclərin səmərəli inkişafı istiqamətində də həyata keçirilən fəaliyyətin səmərəliliyini və uğurunu təmin etmək üçün lazımi qanunvericilik bazasının formalaşdırılması zəruridir. Ulu öndər Azərbaycan gənclərinin ilk forumunun keçirildiyi vaxtdan etibarən bu istiqamətdə olduqca böyük işlər gördü. Belə ki, 1996-2002-ci illər ərzində Heydər Əliyevin “Bədən tərbiyəsi və idman haqqında”, “Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında”, “Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında”, “Dövlət gənclər siyasəti haqqında” imzaladığı fərman və sərəncamlar müasir Azərbaycan gəncliyinin formalaşdırılması istiqamətində həyata keçirilən dövlət siyasətinin uğuruna təminat verdi. Ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycan gəncliyinin formalaşdırılması istiqamətində imzalanan bütün fərman və sərəncamlar, atılan bütün addımlar hər bir Azərbaycan gəncinin respublikamızın ictimai-siyasi həyatında yaxından iştirakı üçün geniş imkanlar açmaqla yanaşı, ayrı-ayrı dövlət orqanlarının diqqətinin gəncliyin problemlərinin həllinə yönəldilməsini şərtləndirib. Ulu öndər demişdir ki, “XXI əsr Azərbaycanda gənclərin müstəqil dövlətimizi qurub-yaratmaq və inkişaf etdirmək dövrüdür”. Bu o deməkdir ki, Ümummilli lider Azərbaycan gənclərinə hədsiz dərəcədə böyük etimad göstərib. Bu etimat bizim hər birimizin üzərinə böyük məsuliyyət qoyub və hər bir gənc əlindən gələni etməlidir ki, Heydər Əliyevin gənclərə göstərdiyi böyük etimadı doğrultsun.

Heydər Əliyevin Azərbaycan gənclərinə ölçüyəgəlməz dərəcədə böyük qayğı göstərdiyini daha bir məqam sübut edir. Bu məqama xüsusi diqqət yetirmək vacibdir. O, müasir gənclərin vətəninə, xalqına layiq, hərtərəfli hazırlıqlı övlad kimi yetişməsinin qeydinə qalmaqla yanaşı, sabahın da gənclərini düşünürdü. Onun gərgin əməyi və səyləri nəticəsində Azərbaycan malik olduğu zəngin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması üçün iri layihələrə imza atıb. Əldə olunan gəlirlərdən ölkənin bütün infrastrukturlarının inkişafında səmərəli istifadə edildiyi kimi, gənclərin də inkişaf etdirilməsi və gələcək nəsillərin rifah halının təmin edilməsi istiqamətində də geniş istifadə olunur. Ümummilli liderin təşəbbüsü ilə Dövlət Neft Fondunun yaradılması və fondun maliyyə ehtiyatlarının əsas hissəsinin gələcək nəsillər üçün nəzərdə tutulması bir daha ölkədə gənclərin bu gününün və sabahının ən yüksək səviyyədə, etibarlı təminatı haqqında düşünüldüyünü sübut edir. Heydər Əliyev gənclərin bütün təbəqələrinin dövlət qayğısı ilə əhatə olunmasına xüsusi diqqət yetirirdi. Bunun üçün aidiyyatı dövlət qurumlarının və təşkilatların imkanlarının səfərbər edilməsi istiqamətində yorulmadan fəaliyyət göstərirdi, gənclərin problemlərinin aradan qaldırılması ilə bağlı həyata keçirilən hər bir tədbirə, atılan hər bir addıma böyük önəm verirdi. Ulu öndər gənclərlə bağlı reallaşdırılan siyasəti müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirib.

Əsası Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti Onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməklə yanaşı, həm də müasir dövrün tələblərinə və reallıqlarına uyğun olaraq mahiyyət və keyfiyyətcə yeni bir mərhələyə yüksəldilib. Prezident İlham Əliyev Ulu öndərin əsasını qoyduğu uğurlu gənclər siyasətinə böyük sadiqlik nümayiş etdirərək bu istiqamətdə əhəmiyyətli qərarlar qəbul edib və addımlar atıb. Son bir neçə ildə bilavasitə gənclərlə bağlı 20-ə qədər normativ sənədin qəbul olunması ölkəmizdə gənclərlə iş sahəsində, gənclərin sosial-iqtisadi inkişafına yönəldilmiş mükəmməl qanunvericilik bazasının formalaşdırılmasından xəbər verir. Cənab Prezident tərəfindən ölkədə həyata keçirilən gənclər siyasəti gənclərin bütün təbəqələrinin hərtərəfli inkişafını, ölkənin ictimai-siyasi həyatında onların yaxından iştirakını təmin etməkdədir. Yeni mərhələdə cənab İlham Əliyev tərəfindən gerçəkləşdirilən siyasət ən müxtəlif sahələri əhatə etməklə çox geniş spektrlidir. Belə ki, bu siyasət gənclərin tərbiyəsi, sağlamlığı, təhsili, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili, həmçinin, gənclərin cəmiyyət həyatının bütün sahələrində fəal iştirakı ilə bağlı məsələləri əhatə edir. Gənclər ölkədəki demokratiya quruculuğu istiqamətində uğurla həyata keçirilən çoxşaxəli fəaliyyətə öz töhfələrini verməkdədirlər. Gənclərlə düzgün iş strategiyasının müəyyənləşdirilməsi və bu strategiyadan irəli gələn vəzifələrin dəqiqliklə yerinə yetirilməsi nəticəsində bu gün Azərbaycan gənci idman, elm, mədəniyyət, incəsənət və s. sahələrdə böyük nailiyyətlər əldə edir, dövlətçilik ənənələrini daim uca tutur, çoxşaxəli dövlət islahatlarının həyata keçirilməsində yaxından iştirak edir. Məhz

Prezident İlham Əliyevin böyük əməyi və səyi nəticəsində Azərbaycan gəncliyi artıq cəmiyyətin inkişafında ciddi rolu olan fəal sosial təbəqəyə çevrilib. Bu, ondan irəli gəlir ki, cənab Prezident gənclərə, malik olduqları bilik və bacarıq potensialları müqabilində bütün sahələrdə geniş meydan verməyin tərəfdarıdır və bunun təmin edilməsi üçün diqqət və qayğısını əsirgəmir. Bu baxımdan hazırkı mərhələdə gənclər siyasətinin əsasını məhz ölkəmizin davamlı inkişafı prosesində gənclərin imkanlarından səmərəli istifadə edilməsi üçün hər cür şəraitin yaradılması təşkil edir. Prezident İlham Əliyev 2005-ci il avqust ayının 30-da "Azərbaycan Gəncliyi Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncam gənclərin potensialından ölkənin mənafeyi naminə səmərəli istifadə olunması, onların faydalı məşğulluğunun təmin edilməsi, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi məqsədini daşıyırdı. 2005-2009-cu illəri əhatə edən bu proqramda gənclərin və yeniyetmələrin vətənpərvərlik, vətəndaşlıq tərbiyəsinin daha da gücləndirilməsi, onların məşğulluğunun təmin edilməsi, sahibkarlıq fəaliyyətlərinə kömək göstərilməsi, sosial problemlərinin həlli, o cümlədən, yaradıcı və istedadlı gənclərə, gənc ailələrə dövlət qayğısının artırılması, mənzil şəraitlərinin yaxşılaşdırılması, gənclərin dövlət quruculuğu işlərinə geniş cəlb olunması və s. məsələlər əksini tapıb. Proqramın tələblərinə uyğun olaraq bu istiqamətdə qarşıda duran bütün vəzifələrin dəqiqliklə həyata keçirilməsində birbaşa dövlət başçısının yaxından iştirakı ilə və nəzarəti altında uğurlu addımlar atılıb. 2006-cı ildə cənab Prezidentin Fərmanı ilə Gənclər və İdman Nazirliyi yenidən təşkil edilib. Bununla, həm də nazirliyin qarşısında gənclərin daha mükəmməl təşkilatlanması, problemlərinin həlli, bilik və bacarıqlarının yüksəldilməsi ilə bağlı yeni ciddi vəzifələr qoyulub. Dövlət başçısının qərarı ilə 2007-ci il ölkəmizdə Gənclər ili kimi qeyd edilib. Cənab Prezident demişdir ki, Azərbaycanın gələcək inkişafında gənclərin rolu çox böyükdür. Bunun üçün Prezident İlham Əliyev ilk növbədə, gənclərin təhsil səviyyəsinin, bilik və bacarıqlarının yüksəldilməsi məsələsinə daha çox diqqət yetirib. Bu baxımdan dövlət gənclər siyasətinin mühüm istiqamətini gələcək nəslin intellektual səviyyəsinin artırılması ilə bağlı işlərin həyata keçirilməsi təşkil edir. Ölkədə həyata keçirilən uğurlu təhsil islahatları nəticəsində gənclərimizin təhsil səviyyəsi əhəmiyyətli dərəcədə artıb. Belə ki, indi ölkəmizdəki 1000 nəfər gəncdən 954-nün bu və ya digər səviyyə də təhsili var. Ali məktəblərdə təhsil alan gənclərin sayı 129 min, orta ixtisas məktəblərində isə 57 min nəfər təşkil edir. Yaradılmış unikal imkanlar gənclərin elmi fəaliyyətlə məşğul olması üçün böyük stimul olub. Sevindirici haldır ki, ölkədəki tədqiqatçıların 19 faizini gənclər təşkil edir. Dövlətin gənclərimizə olan böyük qayğısının nəticəsidir ki, dövlət büdcəsinin böyük hissəsi təhsil xərcləri üçün nəzərdə tutulub. Son bir neçə ildə həm dövlət vəsaiti hesabına, həm də Heydər Əliyev Fondunun hesabına 1200-ə yaxın məktəb tikilib, əksər məktəblər və ali təhsil ocaqları əsaslı təmir edilib. Bu istiqamətdə işlər davamlı xarakter alıb. Ölkədə geniş kompüterləşmə proqramı həyata keçirilir. Bu, olduqca əhəmiyyətli məsələdir. İnformasiya texnologiyalarından istifadə etmək vərdişlərinə yiyələnməklə və internetə çıxış imkanı əldə etməklə gənclərimiz, şagirdlərimiz, tələbələrimiz dünyada baş verən bütün hadisələri yaxından izləyir, dünyada gedən prosesləri təhlil etmək üçün imkanlar əldə edirlər. Prezident İlham Əliyevin "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nı təsdiq etməsi bütün təbəqədən olan gənclərin xaricdə təhsil almaları üçün geniş imkanlar açıb.

Dövlət gənclər siyasəti çərçivəsində gənc ailələrə xüsusi qayğı göstərilir. Bu istiqamətdə aparılan uğurlu siyasətin nəticəsidir ki, son illərdə nikah bağlayan gənclərimizin xüsusi çəkisi 56 faiz artıb. Gənclərə ipoteka kreditlərinin verilməsi onların mənzil probleminin həll olunmasında mühüm rol oynayır. 2005-ci ildə gənc ailələrə güzəştli ipoteka kreditinin verilməsi ilə əlaqədar Prezident İlham Əliyev Fərman imzalayıb. Bu, Azərbaycan dövlətinin gənclərə qayğısının daha bir bariz nümunəsi idi. Gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin təmin edilməsi də mühüm yer tutur. Dövlət başçısının ardıcıl səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. Təsadüfi deyil ki, bu gün dünyanın bəzi dövlətləri Azərbaycanın gənclər siyasəti modelini tətbiq etmək istəyirlər.

Azərbaycan gəncliyinin formalaşmasında və keyfiyyətli inkişafında Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rolunu xüsusi qeyd etmək lazımdır. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi ardıcıl tədbirlərin Azərbaycan gəncinin mənəvi dəyərlərinin möhkəmlənməsində, intellektual səviyyəsinin yüksəlməsində və digər keyfiyyətlər qazanaraq özünü cəmiyyətdə təsdiq edə bilməsində əvəzsiz rolu olub. Azərbaycanın birinci xanımı gənclərin məşğulluğunun təmin olunması istiqamətində də böyük işlər görüb, mühüm addımlar atıb. Bu istiqamətdə dünya dövlətləri üçün örnək olacaq nailiyyətlər əldə edilib. 2008-ci ilin sentyabrında Heydər Əliyev Fondunun dəstəyi ilə, dünyanın yüz ölkəsindən beş yüzə yaxın qonağın qatıldığı "Gənclərin Məşğulluq Sammiti"nə ev sahibliyi edən Azərbaycan məşğulluq probleminin aradan qaldırılması istiqamətində gördüyü işlərlə dünyanı heyran qoyub. Bütün bunlar bir daha sübut edir ki, Azərbaycan gəncliyinin bu günü və sabahı etibarlı əllərdədir və biz sabaha böyük inamla baxırıq.

**"Yeni Azərbaycan".-**2010.-2 fevral.-N.19.-S.5.

# ŞƏXSİYYƏT VƏ ZAMAN

**Nurlana ƏLİYEVA,**
YAP Qadınlar Şurasının sədri,
filologiya elmləri doktoru, professor

**Ümummilli lider Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti Vətənə və xalqa misilsiz xidmət nümunəsidir. Onun siyasi və dövlətçilik irsini öyrənmək, müstəqil dövlət quruculuğunda istifadə etmək, gəncliyin tərbiyəsində bir mayaka çevirmək bizim elmi, siyasi-nəzəri və pedaqoji sahələrdə ən mühüm vəzifələrimizdən biridir. Bu baxımdan, Heydər Əliyevin dövlətçilik və milliyyətçilik irsi ilə yanaşı onun şəxsi tərcümeyi-halının öyrənilməsi də böyük tarixi və elmi məna kəsb edir.**

Ulu öndərin səksən illik kəşməkəşli, mənalı, maraqlı ömrünün, xalqımızın taleyi ilə üzvi şəkildə bağlı olan bioqrafiyasının öyrənilməsinə hələ onun sağlığında təşəbbüslər edilmişdir. Lakin bu təşəbbüslərin hər biri adətən onun bioqrafiyasının konkret dövrü ilə bağlı olduğu üçün ulu öndərin həyat yolunun bitkin mənzərəsini yarada bilmirdi. Buna görə də böyük hakimiyyət ustadı haqqında belə bir sanballı tədqiqata böyük ehtiyac var idi, çünki Heydər Əliyevi şəxsən tanıyan adamlar da əbədi deyillər, imkan dairəsində onlardan rəhbər haqqında xatirə materiallarını damla-damla da olsa toplamaq belə bir əsaslı tədqiqat əsəri üçün zəruri idi.

Son on ildə bu istiqamətdə xeyli materiallar dərc olunub. Bunların içərisində sənədli olanlar da, xatirə kimi yazılanlar da vardır. Bu işlər sırasında yazıçı-jurnalist, Milli Məclisin deputatı Elmira Axundovanın işləri diqqəti cəlb etdi. 80-ci illərdən o bir jurnalist, ədəbiyyatçı kimi tanınırdı, elmi və ədəbi yazıları da maraqla oxunurdu. Lakin 2002-ci ildə onun hüquqşünas İsa Nəcəfovla birlikdə yazdığı “Naşirin ölümü” kitabı çıxandan sonra Elmira xanım siyasi publisistika ilə ardıcıl məşğul olmağa başladı.

Nə yaxşı ki, bu yolu seçdi, çünki bundan onun ədəbiyyatçı qələmi də, zənnimcə, bizim publisistikamız da çox qazandı.

Bu seçim və keçid təsadüfi deyildi. Elmira Axundova öz məqsədinə doğru hər işdə həmişə ciddiliyi və ardıcıllığı ilə seçilirdi. Sənədli publisistika üçün bu, mühüm keyfiyyətdir. Əl atdığın mövzuya bağlanasan, onun üzərində sona qədər, bütün suallar aydınlaşana kimi qarşıya qoyulan məqsəd əldə edilənəcən davam edəsən. “Naşirin ölümü” və onun ardınca “Şüşə saray” kitablarında bu xüsusiyyət tam mənada özünü göstərdi. İkinci kitabı Elmira xanım artıq müstəqil şəkildə qələmə almışdı.

Bu iki kitabı birləşdirən mühüm bir cəhət var idi: müəllifin Heydər Əliyev tərəfindən aparılan müstəqil dövlət quruculuğu prosesinə, bu prosesin mürəkkəbliyinə və labüd qələbələrinə işıq salmaq istəyi. İlk iki kitabın daxili leytmotivi məhz belə idi. Xüsusilə Əjdər Xanbabayevin qətlinə həsr olunmuş süjet müəllifi öndərin dostları və düşmənləri ilə bağlı kökləri dərində olan intriqaların araşdırılmasına gətirib çıxardı. Mərhum naşirin günahı ancaq onda idi ki, öz xalqının gələcək taleyini Heydər Əliyevin siyasi taleyindən ayrı görmür, onun Vətənə dönməsi üçün, doğma xalqına dayaq olması üçün var gücü ilə çalışırdı.

Lakin görünür rəhbərin Moskvadakı və Bakıdakı düşmənləri və bədxahları onun nəyə qadir olduğunu dostlarından və silahdaşlarından yaxşı bilirdilər. Ona görə də Heydər Əliyev Moskvadakı vəzifələrindən istefa verən kimi, M. Qorbaçovun ağılsız siyasətinə açıq etirazını bildirən kimi siyasi həyatdan, xüsusilə Vətəni Azərbaycanla əlaqələrdən təcrid edilməyə başladı. O zaman artıq bütün qüvvəsini itirmiş sovet dövlət maşınının məxfi imkanları bunun üçün işə salındı. Bu böyük insanın şəxsi sağlamlığını sarsıtmağa qədər hər cür məkrli üsullara əl atıldı. Lakin bunların heç biri nəticə vermədi, çünki öndərin dəmir iradəsi, siyasi müdrikliyi və uzaqgörənliyi qarşısında bütün fitnələr aciz idi. Ona görə rəhbər öz xalqı ilə qovuşa bildi və onu müstəqil dövlətçilik yolunda dönməz bir istiqamətə yönəltdi. Hələ Elmira xanım “Literaturnaya qazeta”nın müxbiri olanda Heydər Əliyevlə görüşüb ondan müsahibə də almışdı. Çox güman ki, məhz bu görüşlər jurnalistə dərin təsir göstərmiş və onda Heydər Əliyev fenomeninə maraq oyatmışdı. Rəhbərin fəaliyyətini izlədikcə onun işlərinin miqyası, uzaqgörənliyi, xalqımıza dərin məhəbbəti onu daha artıq valeh etdi. Beləcə, publisistin yaradıcı axtarışlarının təbii yolu onu Heydər Əliyevin bioqrafiyası ilə bağlı birbaşa araşdırmalara gətirib çıxardı. Bu isə çox çətin və məsuliyyətli iş idi.

Axı Heydər Əliyevin əsas fəaliyyət dövrü Sov. İKP-də tutduğu böyük vəzifələrlə bağlı idi. Lakin yazılmamış bolşevik etiketi o zamanlar partiya rəhbərlərinin bioqrafiyasını da dövlət məsələsi səviyyəsinə qaldırmışdı və adamlar öz təşəbbüsləri ilə sovet rəhbərlərinin tərcümeyi-halı ilə məşğul ola bilməzdilər. On üç il Azərbaycan partiya təşkilatının rəhbəri, beş il isə Moskvada Siyasi Büro üzvü olmuş Heydər Əliyevin bu dövr bioqrafiyası barədə ancaq rəsmi mənbələr üstünlük təşkil edir. Qeyri-rəsmi mənbələrin azlığı isə izah olunandır: o zamanlar bütün böyük dövlət adamlarının şəxsi həyatı qapalı idi və Qərbdə olan sayaq kübar xronikasının predmeti ola bilməzdi.

Belə məhdudiyyətlərə baxmayaraq, Heydər Əliyev xalq içindən çıxmış bir şəxsiyyət kimi yaşamış, xalqımızın və öz dövrünün siyasi, elmi, ədəbi və yaradıcı şəxsləri, çoxsaylı sadə dostları ilə yaxın ünsiyyətdə olmuş bir ömür yaşamışdı. Bu ömrün xronikasını yaratmaq üçün son on ildə istedadlı publisist və jurnalist Elmira Axundova da öz təşəbbüsünü göstərmişdir. Xoşbəxtlikdən bu təşəbbüs çox uğurlu olmuşdur. Bunun birinci səbəbi Elmira xanımın ulu öndərin bioqrafiyasını yazmaq məqsədilə araşdırmalarında çox təkidli və ardıcıl olması idi. Bunun nəticəsində onun Heydər Əliyev bioqrafiyasına həsr olunmuş araşdırmaları dörd cildlik şəklində oxucuların və elmi ictimaiyyətin ixtiyarına verilmişdir.

Tədqiqatın birinci hissəsi 1923-1969-cu illəri əhatə edir və "Heydər Əliyev. Şəxsiyyət və zaman" adı ilə 2007-ci ildə "Ozan" nəşriyyatında çapdan çıxmışdır. Bütün oxucular kimi öndərin həyatının bu dövrü mənə də nisbətən az məlum idi, ona görə bu hissəni xüsusi maraqla oxudum. Bu, Heydər Əliyev fenomeninin təşəkkül dövrüdür. Həm də onun bir insan, vətəndaş və şəxsiyyət kimi yetişdiyi illərdir. Həmin illər əsasən gənc Heydərin həyatının Naxçıvan dövrünü zəngin faktlar və xatirə materialları əsasında canlandırır. Burada bir tərəfdən Zəngəzurun Sisyan bölgəsinin tarixçəsi, buradakı Comərdli və Urud kəndlərinin qoçaq insanlarının erməni soyqırımına qarşı mübarizəsi tarixinə də qısa ekskurs edilmişdir. Bu ekskurs böyük maraqla oxunur, xalqımızın erməni aqressivliyinə qarşı mətin mübarizəsinin həm şərəfli, həm faciəli səhifələrini gözlərimiz qarşısında canlandırır. Öndərin ulu babaları, Nadir şahın mətin döyüşçüləri olmuş Comərd və Alagöz , Məhəmməd qardaşları haqqında məlumatlar oxucunu inandırır ki, həqiqətən "ot kökü üstə bitər". Möhkəm iradə, məqsədyönlülük, işdə ardıcıllıq bu tayfanın bir çox nümayəndələrinin hərbi işdə fərqlənməsinin əsası olmuşdur.

Öndərin ata-baba yurdu Comərd kəndi əhalisinin qohum bir tayfadan ibarət olması, dağların başında böyük qürurla yaşayıb öz milli ləyaqətini qoruması təbii idi. 1918-ci il erməni-müsəlman qırğınları bu kəndin sakinləri və Comərdli tayfası üçün həm qəhrəmanlıq səhifəsi, həm də faciəli olmuşdur. Erməni daşnakları, Andronikin başkəsənləri ilə qeyri-bərabər şəraitdə vuruşan kəndin sakinləri sonda fiziki qırğına məruz qalır. Bu, yüzlərlə Zəngəzur kəndlərindən birinin faciəli taleyi idi. Kəndin imkanlı ailələrinin var-yoxu əllərindən çıxır, özləri isə mühasirəyə salınır və onlara qanlı divan tutulur və kəndin faktiki süqutu ilə nəticələnir. Onun qəhrəman sakinlərindən sağ qalanlar Zəngəzurun Urud kəndindən Naxçıvana, oradan Bakıya qədər didərgin düşürlər. Lakin heç zaman bir-birini itirmir, axtarır tapır, öz nəsillərinin qəhrəmanlıq tarixini bərpa edirdilər. Bu , təbii idi, çünki öz köklərini itirən insanlar həm də varlıqlarını itirirlər.

Süqut edən Comərdli kəndinin bəzi sakinləri Urudda məskən salmışdılar. Heydər Əliyevin ata nənəsi və anası İzzət xanım da Urud kəndindən idi və bu kəndin əksər ailələri Comərdli camaatı ilə qohum idilər. Heydər Əliyev Naxçıvanda oxuyub təhsil aldığı illərdə yay tətillərində ailələri üçün doğma yer olan Uruda gəlir, ana tərəfdən olan qohumları və kəndin məğrur insanları, onların çətin dolanışığı ilə tanış olurdu. Həm də öz köklərini tanımaq və sevmək Heydərin yeniyetməlik vaxtlarından mühüm xarakter cizgisi idi.

Heydər Əliyev böyük maarif ənənələri olan Naxçıvanda öz dövrünə görə gözəl orta təhsil ala bilmişdi. Yeddinci sinfi bitirəndə artıq rus dilini kifayət qədər mənimsəmiş, kitab və mətbuat oxumaq vərdişlərinə yiyələnmişdi. Sonralar bu vərdiş onun bütün həyatı boyu əlindən tutdu, sənədlərlə yaxşı işləyə bilməsini təmin etdi. O zaman rus dilində danışa bilmədən, sənəd hazırlaya bilmədən ciddi vəzifələrə qalxmaq mümkün deyildi. Gələcək öndər artıq Naxçıvandakı pedaqoji texnikumda oxuyanda buna qadir bir gənc idi.

Savadı və bilikləri artdıqca, əlinə düşən tarix kitablarını oxuduqca, xalqın tarixini yaxından öyrəndikcə o, doğma Vətənin sabahını daha yaxşı görür və dərk edirdi. Azərbaycan xalqı böyük və qüdrətli bir xalqdır. Amma ətrafdakı yoxsulluq, insanların millət və azadlıq sözünü dilinə gətirməkdən qorxması ona ağır təsir edirdi. Əvvəlcə Naxçıvanda, sonra Bakıda işləməyə başlayanda o, qəddar sovet gerçəkliyi ilə tanış oldu, özü üçün nəticələr çıxardı. Naxçıvanda gözə dəyən vəzifələrdə ermənilər az deyildi. Onların arasında baş saxlamaq, yüksəlmək lazım idi. Gənc Heydər xalqımız qarşısında necə böyük və çətin vəzifələrin durduğunu anladı və öz iradə və gücünü gələcək mübarizələr üçün səfərbər etməyə başladı.

Rəhbərin indiyə qədər hazırlanan tərcümeyi-hallarının heç birində onun 1939-cu ilə qədərki həyatı Elmira xanımın kitabında olduğu qədər müfəssəl və hərtərəfli təqdim olunmamışdı. Usta bir publisist olan müəllif bütün xatirə materiallarını toplamaqla, onların hamısından istifadə etməklə kifayətlənməyib. Öz təşəbbüsü ilə Naxçıvana getmiş, Heydər Əliyevin gənclik illərinin bütün şahidlərini tapıb onlardan xatirə materialları toplayıb. Nəticədə araşdırmanın birinci cildi bədii əsər kimi oxunaqlı publisistik nümunə, zəngin bir bioqrafik kitab ərsəyə gətirmişdir. Həm fakt zənginliyi, həm də bədii səciyyəsinə görə birinci kitab daha uğurlu çıxmışdır. Çox güman ki, bunun əsas səbəbi rəhbərin sonrakı həyatının rəsmi xarakter daşıması ilə bağlıdır.

O zaman müəllimlik ən mötəbər bir peşə olduğundan ailə üzvlərinin xeyir-duası ilə o Naxçıvan Pedaqoji Texnikumuna daxil olur və oranı 1939-cu ildə 16 yaşında uğurla bitirir. Qısa bir vaxt Şahbuzda müəllim işlədikdən sonra Bakıya gəlir. Atası Əlirza kişi hələ inqilabdan əvvəl Bakı neft mədənlərində işləmişdi.

Sonuncu dəfə 1934-cü ildə Naxçıvana qayıdıb, orada ömrünün sonuna qədər dəmir yolunda çalışmağa başlamışdır.

Əlirza kişinin və ailəsinin bir ayağı hələ inqilabdan qabaq Bakıya bağlı idi. Heydər Əliyevin böyük qardaşı Həsən və Hüseyn 20-ci illərdən Bakıda yaşayır, işləyir və təhsil alırdılar.

1939-cu ildə Bakıya gələn Heydər Əliyev Sənaye İnstitutunun arxitektura fakültəsinə (indiki Azərbaycan Dövlət Neft Akademiyası) daxil olub böyük qardaşı Həsənin yanında qalırdı. 1940-cı ildə təhsili yarıda qoyub Naxçıvana gəlir. Bu hadisələrlə bağlı versiyaları nəzərdən keçirən Elmira xanım obyektiv mövqe tutur, vaxtilə rəhbərin şəxsi düşmənlərinin və bədxahlarının qələmə aldıqları böhtanları əsaslı şəkildə, faktlarla təkzib edir.

Xatirə materialları ilə ustalıqla işləyən müəllif bu mərhələyə qədərki illəri canlı publisistika dili ilə və faktiki materiallar əsasında çox oxunaqlı şəkildə qələmə almışdır. İstifadə edilən xatirə materialları içərisində Heydər Əliyevin uşaqlıq və gənclik dostları İ. İsmayılov və Naxçıvan Beynəlmiləl Məktəbində onunla birgə oxumuş digər yerli ziyalıların xatirələri maraqlıdır. Heydər Əliyevin uşaqlıqdan ədəbiyyat və teatra marağı, Naxçıvandakı həvəskarlar teatrında iştirakı barədə məlumatlar və xatirələr diqqətçəkəndir. Əsər qəhrəmanının həyatı, mənəvi inkişafı, gənclik arzuları barədə ətraflı təsəvvür verir.

Heydər Əliyevin 1944-cü ildən Azərbaycana rəhbər seçilənədək təhlükəsizlik orqanlarındakı fəaliyyəti də Elmira Axundova tərəfindən əhatəli faktlar, materiallar əsasında araşdırılır. Moskvada bu mövzuda çıxan çoxsaylı mənbələrdən biri də onun diqqətindən yayınmır. Bu da yorulmaz axtarışların bəhrəsidir. Lakin müəllif açıq materiallarla yanaşı arxiv sənədlərindən, o cümlədən təhlükəsizlik orqanlarının arxivlərindən rəhbərin parlaq çekistlik fəaliyyəti haqqında çoxlu yeni məlumatlar üzə çıxarır, onlardan bir qisminin fotosurətlərini dərc edir.

Ulu öndərin işlədiyi təhlükəsizlik orqanlarında bütün rəhbər vəzifələrdə qeyri millətlərdən olanlar daha çox idi. Yerli kadrlara yuxarıdan aşağı baxırdılar. Torpağımız üstündə ağa qüruru ilə yeriyirdilər. Xüsusilə ermənilər bu orqanda at oynadır, azərbaycanlıların yüksəlişinin qarşısını alır, irəli çəkəndə isə ən zəif və iradəsiz adamları çəkirdilər. Bütün dövlət orqanlarında, təsərrüfat sahələrində də vəziyyət təxminən eyni idi. Bakı partiya təşkilatının, prokurorluq və milis orqanlarının bütün aparıcı vəzifələrində ermənilər oturmuşdular. Hətta elm və tarix problemləri müzakirə olunanda da Moskva ancaq onların rəyi ilə hesablaşırdı. Bütün gəlirli sahələrdə, hətta ictimai iaşədə, xalqın sərvətlərinə nəzarət edilən nöqtələrdə ermənilər oturmuşdu. 1920-ci ilin 27 aprelindən sonra bu yazılmamış qanun məhz Heydər Əliyevin ardıcıl siyasəti nəticəsində sındırılmışdır.

Kitabda rəhbərin kadr siyasətinə həsr edilmiş hissələr çox zaman görünmədən aparılan bu siyasi işin tarixi mənasını, sonrakı müstəqillik dövrü üçün əhəmiyyəti göstərilir. Mövzunu Heydər Əliyevin M. Qorbaçov tərəfindən təqib olduğu illərdə davam etdirən müəllif göstərir ki, kadr siyasəti barədə bütün iradlar əslində “kadr milliləşməsi” siyasətinə görə ondan alınan gecikmiş qisas idi.

Dəmir iradəsi , yorulmazlığı, qeyri-adi müdrikliyi, dövlət siyasətindən və professional işdən gözəl baş çıxarması nəticəsində Heydər Əliyev Azərbaycanın dövlət təhlükəsizliyi sistemində ən böyük avtoritetə çevrildi. Hətta Moskvada da onun rəyini diqqətlə dinləyir, peşəkar kimi onunla məsləhətləşirdilər. Lakin Heydər Əliyev öz nüfuzundan ilk növbədə bir məqsədlə-xalqa sədaqətli, yetkin azərbaycanlı kadrları irəli çəkmək üçün istifadə edirdi. Elə bir vəziyyət yarandı ki, ermənilər onun nüfuzu qarşısında geri çəkildilər. Xalqın böyük oğlu əvvəlcə təhlükəsizlik orqanında ikinci , sonra isə birinci şəxs oldu.

50-ci illərdən ardıcıl olaraq Heydər Əliyev öz siyasi yüksəliş planlarını həyata keçirməyə başladı. Onun məxsus olduğu ailə üçün bu heç də qeyri-real bir şey deyildi. Hələ 1952-ci ildə onun böyük qardaşı Həsən Əliyev Azərbaycan KP MK katibi seçilmişdi. Qayınatası Əziz Əliyev də böyük dövlət vəzifələrində olmuşdu və onun partiya və dövlət işləri barədə məsləhətləşməyə, lazımi informasiyalara malik olmağa hər cür imkanları var idi. Hələ bu illərdən o, ətrafa diqqətlə nəzər yetirir, xalqa bağlı, işbilən, etibarlı kadrları seçib ehtiyatda saxlamağa çalışırdı. Məhz bu kadrlar müstəqillik illərində rəhbərin yaxın köməkçiləri oldular.

Azərbaycanda xalqın gələcəyi naminə hər hansı iş görmək üçün ilk növbədə, dövlət təhlükəsizliyi orqanlarında lazımi adamları vəzifələrdə oturtmaq və bu orqanı neytrallaşdırmaq lazım idi. Sovet sistemində bu orqanın nüfuzu yüksək idi, Moskvadakı partiya rəhbərliyi onun rəyinə böyük əhəmiyyət verirdi. Siyasi yüksəliş illərində Heydər Əliyevin başlıca keyfiyyəti onun parlaq dövlətçilik bacarığı qabarıq özünü göstərdi. Bu bacarıq tədqiqatın bütün cildlərində geniş əksini tapır. Rəhbər öz siyasi planlarını çılpaq, volyuntarist əmrlər şəklində yox, gündəlik və yorulmaz təşkilatçılıq yolu ilə həyata keçirirdi. Ətrafdakı insanlar, cəmiyyət bunu çox vaxt hadisələrin təbii axarı kimi qəbul edirdilər. Əslində isə onun hər bir kadr dəyişikliyinin uzaqgörən məqsədləri var və həmişə milli dövlətçilik arzuları ilə bağlı idi.

Öndərin digər rəhbərlik xüsusiyyəti onun siyasi uzaqgörənliyində və möhkəm iradəsində özünü göstərir. Uzaq və böyük planlar qurmaq milli liderimizin siyasi rəhbərliyinin mühüm cizgisi idi. Amma kənardan onun

bu xüsusiyyəti də demək olar ki, sezilmirdi. Səbəb isə o idi ki, öndərin siyasi qərarları və gedişləri üç-beş il sonraya yönəlirdi. Ona görə Heydər Əliyevin qəbul etdiyi qərarların mənası ancaq beş, yeddi il keçdikdən sonra sezilə bilərdi. Çıxışlarında o, alovlu bir beynəlmiləlçi kimi danışır və düşmənlərinin, erməni daşnakların istifadə edəcəyi arqumentləri onların əlindən alırdı. Əməldə isə bütün qərarlar Azərbaycan Respublikasını addım-addım bütün sahələrdə milliləşdirməyə yönəlmişdi.

Müəllif 1969-cu ildə Heydər Əliyevin artıq təhlükəsizlik orqanlarını milliləşdirmək vəzifəsini yerinə yetirməsini bir daha nəzərə çarpdırdı. İndi partiya rəhbərliyinə keçmək olardı. Həmin ildə Azərbaycanın rəhbərliyini yeniləşdirmək ideyası ortaya çıxanda Heydər Əliyevin Moskvadakı tərəfdarları və dostları onun namizədliyini irəli sürdülər. 1969-cu ilin iyulunda öndər Azərbaycan KP MK-nın birinci katibi seçildi. Beləliklə, xalqın müdrik oğlu müstəqil Azərbaycan Respublikasının yaradılması mərhələsinə keçə bildi. O zamanlar ölkədəki inzibati, iqtisadi və siyasi hakimiyyətin hamısı birinci katibin nəzarətində olurdu.

Azərbaycanı müstəqillik və azadlıq idealına tərəf aparmaq üçün Heydər Əliyevin qarşısında o zaman iki əsas vəzifə dururdu: birinci Azərbaycanın iqtisadiyyatını inkişaf etdirib müstəqil ölkə kimi yaşaya biləcək bir səviyyəyə qaldırmaq idi. Ona görə 1969-1982-ci illəri müstəqilliyin iqtisadi əsaslarını yaratmaq mərhələsi adlandırmaq olar. İkinci vəzifə isə Azərbaycan Sovet Sosialist Respublikasının bütün hüceyrələrində yuva salmış erməni hökmranlığını hiss olunmadan dağıtmaq. Bu mürəkkəb vəzifələri Heydər Əliyev cəmi on üç il ərzində həyata keçirdi. Rəhbərin bu sahədəki titanik fəaliyyəti tədqiqatın ikinci (1969-1982) və dördüncü (1969-1989) cildlərinin əsas mündəricəsini təşkil edir. Dördüncü cild xronika xarakteri daşısa da, rəhbərin siyasi fəaliyyətinin beynəlxalq miqyasını və həcmini təsəvvür etməkdə ciddi əhəmiyyət daşıyır.

1969-1983-cü illərdəki sürətli iqtisadi quruculuq xalqımızın azadlığa və müstəqilliyə nail olması yolunda köklü əhəmiyyət daşıyırdı. Bu fikrin əsaslandırılması ikinci kitabın əsas mündəricəsini təşkil edir. Güclü iqtisadiyyatı olmayan xalq və onun dövləti xarici düşmənlərin müqavimətinə tab gətirə bilməzdi. Uzaqgörən bir siyasətçi kimi öndər Azərbaycanın müstəqilliyinə hansı beynəlxalq qüvvələrin və dairələrin müqavimət göstərəcəyini yaxşı bilirdi. Bu amillər iyirmi üç ay yaşamış Demokratik Cümhuriyyətin taleyi timsalında çox yaxşı məlum idi.

Xalqın mənəvi tərəqqisinə, milli şüurun artmasına öndər xüsusi əhəmiyyət verir və bu sahədə inqilabi yeniliklər həyata keçirirdi. Məhz onun zamanında böyük dövlət tədbirlərində Azərbaycan dili səslənməyə başladı. Ulu öndər 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi qeyd olunmasına nail oldu, nüfuzlu ziyalıların çıxışlarını şəxsi göstərişləri ilə təşkil etdi. 70-ci illərdə Nizami, Nəsimi, Səməd Vurğun kimi klassiklərimizin dövlət səviyyəsində keçirilən yubileyləri gənc nəslin vətənpərvərlik tərbiyəsində, onun azadlıq hərəkatı üçün hazırlanmasında misilsiz rol oynayırdı.

Heydər Əliyevin Vətən qarşısında ən böyük xidmətləri həm də ədəbiyyat, mədəniyyət və təhsillə, bu sahələrin xalqın milli ideallarını daha tam ifadə edə bilməsi məqsədləri ilə bağlı idi. Bunu nəzərə alan müəllif rəhbərin həyatının həm Bakı, həm də Moskva dövründə yaradıcı ziyalılar, jurnalistlərlə şəxsi münasibətlərinə geniş yer ayırır. Məhz Heydər Əliyevin dövründə və onun himayəsi ilə yaradıcılıq ittifaqlarında milli ruh hökmran oldu. Milli istedad sahiblərinə, yazıçı-şair, bəstəkar və rəssamlara öndər özü şəxsən xüsusi qayğı göstərir, cəmiyyətdə onların nüfuzunun yüksəlməsinə çalışırdı. Sayırdı ki, yalnız yüksək mənəvi dəyərləri mənimsəmiş xalq öz azadlığını və müstəqilliyini qazana bilər.

Tədqiqatın üçüncü cildində (1982-1990) də bu məsələlər diqqət mərkəzində saxlanır. Elmira xanım inandırıcı şəkildə göstərir ki, yaradıcı elmi və ziyalı mühiti, televiziya və qəzet işçiləri ilə yüksək səviyyədə qurulan ünsiyyət Moskvada onun bədxahlarını narahat edir və qısqanclıqla qarşılanırdı. Çünki bu əlaqələr onun populyarlığının həqiqi miqyasını üzə çıxarırdı.

Kitabın üçüncü cildində Heydər Əliyev ömrünün ən mürəkkəb, çətin dövrü ilə tanış oluruq. Müəllif bu dövrü hadisələrin birbaşa iştirakçıları olmuş Siyasi Büro üzvlərinin xatirələri və digər mötəbər mənbələr əsasında aparır. Y. Andropovdan sonra Kremldə siyasi qruplar arasında amansız hakimiyyət davası başlamışdı. Heydər Əliyev bu qrupların heç birində yox idi. Ona görə ona qarşı təzyiqlər bütün tərəflərdən gəlirdi. Ən amansızı isə apardığı yenidənqurma siyasəti gündən-günə iflas edən M. Qorbaçov idi. O öz səhvlərini ört-basdır etmək üçün günahkarlar tapırdı. Bu yönlü təzyiqlər son nəticədə rəhbərin səhhətində öz əksini tapdı.

Lakin rəhbərin iradəsi möhkəm idi, onun dayağı doğma xalqı idi. Rəhbər Naxçıvana qayıdanda xalqının ümummilli lideri, həqiqi ağsaqqalı idi. Bizim qısaca nəzərdən keçirdiyimiz dörd cildlik “Şəxsiyyət və zaman” seriyası Heydər Əliyev ömrünün ancaq iki dövrünə güzgü tutur: sovetlər dönəmində Azərbaycandakı və Moskvadakı fəaliyyəti. Lakin tədqiqat hələ bitməyib. Elmira Axundova öz nəcib, vətənpərvər işini davam etdirir. Araşdırmaların üçüncü hissəsi yəqin ki, yaxın vaxtlarda oxuculara təqdim olunacaq. Bu hissə Heydər Əliyevin Azərbaycanın müstəqillik uğrunda mübarizə dövründəki (1990-2003) fəaliyyətini əks etdirəcəkdir. Yorulmaz Elmira xanıma qüvvə və uğurlar diləyirəm.

“**Xalq qəzeti**“.-2010.-20 mart.-N 63.-S.5.

# HEYDƏR ƏLİYEV VƏ ANA DİLİMİZ

**Jalə Əliyeva,**
Millət vəkili, filologiya elmləri doktoru

***Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi kökləri vardır. Şəxsən mən öz ana dilimi çox sevirəm və bu dildə danışmağımla fəxr edirəm.***

**Heydər Əliyev**

Aqillər deyib ki, "xalqın, millətin nəyini əlindən alırsansa al, o yaşayacaqdır. Dilini əlindən alsan, o, milli varlığını itirər, millət kimi yox olar." Bu, tarixin ortaya qoyduğu bir həqiqətdir. Dil millətin mənəviyyat bayrağı, milli mənlik və qürurudur. Dil yoxdursa, xalq da yoxdur.

Tarixi minilliklərin sınağından, hakim rejimlərin təsirindən, yadelli təcavüzlərin təzyiqindən, yabançı dəblərin axınından, müxtəlif dillərin işğalından qalib çıxan, bu günümüzə qədər saflığını, təmizliyini, zənginliyini qoruyaraq gələn dilimiz – Azərbaycan dili haqqında düşünərkən, bu dil haqqında əlimə qələm alıb yazmaq istəyərkən gözlərimin önündə Nizami Gəncəvi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Molla Pənah Vaqif, Həsən bəy Zərdabi, Mirzə Fətəli Axundzadə, Üzeyir bəy Hacıbəyli, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Cəfər Cabbarlı, Mikayıl Müşfiq, Hüseyn Cavid, Aşıq Ələsgər, Şəhriyar canlanır. Bunlar Azərbaycan söz sənətinin, Azərbaycan təfəkkür dünyasının, Azərbaycan dil xəzinəsinin, Azərbaycan ictimai-siyasi fikrinin təməl daşları, bünövrəsi, ən dəyərli inciləridirlər. Əlbəttə ki, bu siyahını davam da etdirmək olar. Azərbaycan ədəbiyyatını, Azərbaycan ədəbi dilini yaradanların və onu milli varlıq kimi sonrakı nəsillərə, bizlərə olduğu kimi çatdıranların hər birinə şübhəsiz borcumuz və ehtiramımız sonsuzdur. Çünki məhz onların sayəsində anamız Azərbaycan adlı cənnət vətənimizin doğma dili olan Azərbaycan dili əsrlərin keşməkeşlərindən alnıaçıq, üzüağ çıxaraq mükəmməl, şirin, lirik, bədii və işlək bir dilə çevrilmişdir.

Adlarını sadaladıqlarım Azərbaycanın böyük mütəfəkkirləri, ədəbiyyat tariximizin nəhəngləridirlər, şair və yazıçıdırlar. Lakin mən bu sıraya bir ismi də əlavə etmək istəyirəm. Düzdür, o, nə şairdir, nə yazıçıdır, nə də dilçidir. Onun şeirləri, romanları, hekayələri yoxdur. Bir sözlə, o, əlinə qələm alıb əsər yazmayıb. O, ən istedadlı yazıçının, şairin belə yarada bilməyəcəyi, qüdrətli bir əsər yaradıb. Bu misilsiz əsərin adı Azərbaycan, yazarı, banisi və yolgöstərəni isə xalqının çox haqlı olaraq Ulu öndər adını verdiyi Heydər Əlirza oğlu Əliyevdir.

Bir az əvvəl qeyd etdim ki, dilimiz haqqında yazmaq istəyərkən gözlərim önündə simalar canlanır. Bu mövzunu düşünərkən yaddaşımın səhifələrində yer alan fikirlər, toxunmaq istədiyim məsələlər, qısası dilimizin dünəni, bu günü və sabahı haqqındakı kiçik qeydlərim məni bu yazıya Heydər Əliyev kontekstində yanaşmağa çağırır. Mən də ürəyimin səsinə qulaq asaraq yola çıxıram…

Ölkəsinin başı üzərində qara buludların dolaşdığı, xalqının olum-qalım sualıyla qarşılaşdığı, torpaqlarının düşmən tapdağı altında qaldığı bir zamanda Simurq quşu kimi qanadlarını açaraq Vətəninin səmasında görünən Heydər Əliyev ona doğru uzanan milyonlarla azərbaycanlının ümidsiz əllərini öz qüdrətli əlləriylə tutdu, onu çağıran, onu səsləyən milyonlarla azərbaycanlının həyəcanlı səsinə öz güclü səsiylə səs verdi. Qarşısındakı bütün sədləri, maneələri öz dərin zəkasıyla, iti ağlıyla, ancaq nadir şəxsiyyətlərə xas olan parlaq istedadıyla, ən əsası isə xalqına və vətəninə bəslədiyi tükənməz sevgisiylə, doğulub böyüdüyü torpağa sədaqəti və bağlılığıyla aşaraq, müstəqil Azərbaycanı yaratdı.

Bu yaxınlarda onun yoxluğunun altıncı ilini yola saldıq. Həmin gün xatirəsinə həsr edilən anım gecələrindən birində çıxışlara qulaq asarkən bir an düşündüm ki, onu bizdən ayıran bu məşum xəbəri aldığımız gündən keçən altı il ərzində dəfələrlə onun xatirəsinin işığına toplaşmışıq, onu yada salmışıq. Bu illər ərzində haqqında yüzlərlə şeir yazılıb, ona poemalar həsr edilib, onu tərənnüm edən mahnılar bəstələnib, haqqında filmlər çəkilib, həyatının müxtəlif anlarını əks etdirən lentlər nümayiş olunub, elmi konfranslar, seminarlar keçirilib. Onu sadəcə ölüm günündə və doğum günündə deyil, hər an, hər saat minnətdarlıqla anırıq. Xatirəsinə həsr edilən tədbirlərdə onunla sağlığında tanış olmaq, görüşmək, birlikdə işləmək səadətinə nail olanlar onun haqqında bildiklərini, xatirələrini, onu şəxsən tanımaq nəsibi olmayanlar isə onun haqqında oxuduqlarını, eşitdiklərini danışırlar. Və bunu da düşündüm ki, onun şəxsiyyətini, kimliyini, böyüklüyünü, vətəni, xalqı üçün etdiklərini tam olaraq anlada biləcək ən mükəmməl əsər hələ yazılmayıb, ən dəyərli söz hələ deyilməyib. Onun şəxsiyyətinin ölçüsü, bizə göründüyündən, bizim onun üçün etmək istədiklərimizdən daha böyükdür və heç şübhəsiz ki, illər keçdikcə biz onun nəhəngliyini daha dərindən anlayacağıq. Əminik ki, bu ölkə Heydər Əliyevin onu bizə əmanət etdiyi kimi qalacaqdır – bütöv və sabit, demokratik və sivil, dünya birliyində layiqli yer tutmuş bir ölkə kimi. Əlbəttə ki, bu gün möhtərəm Prezidentimiz İlham Əliyevlə birlikdə gələcəyə doğru getdiyimiz yolda Azərbaycan daha güclü olacaqdır. Buna inamımız şəksizdir. Çünki bu gələcəyin müqəddəs

təməli Ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və hər bir azərbaycanlının Prezidenti olan, xalqına yaxşı Prezident olmağı bacaran Prezident İlham Əliyev bu müqəddəs yolu öz nurlu əməlləri ilə işıqlandırır.

Ulu öndərin özünün də dediyi kimi, dostu və qardaşı Süleyman Dəmirəl yazır ki, "Mən Heydər Əliyevlə Naxçıvanda olarkan ondan Azərbaycana niyə gəldiyini soruşdum. O dedi ki, mən doğulduğum yerdə xalqıma xidmət etmək istədim. Başqa yerdə bunu edə bilməzdim".

Bəli, o, xalqına xidmət etmək üçün, ömrünün qalan hissəsini də xalqına bağışladı. O deyirdi ki, mən fəxr edirəm ki, azərbaycanlıyam. Ən böyük azərbaycanlı olan Heydər Əliyev bizə müstəqil Azərbaycanı bəxş etdi. Bizə azərbaycançılıq ideyasını hədiyyə etdi. O, son nəfəsinə qədər nə etdisə, ölkəsi üçün, vətəni üçün, xalqı üçün etdi.

Mən burada çox həssas bir məqama toxunmaq istəyirəm. Ancaq nadir şəxsiyyətlərə xas olan dərin intuisiyası və izaqgörənliyi hələ çox illər əvvəl – sovet Azərbaycanının rəhbəri ikən ona düzgün olan yolu göstərmişdi. O, bir peyğəmbər müdrikliyi ilə anlamışdı ki, bir gün gələcək ölkəsi və xalqı müstəqilliyə qovuşacaqdır, rus işğalından azad bir dünya qurulacaqdır. Və elə həmin dövrlərdə gələcəyə olan böyük inamıyla sovetlər məkanında mümkünsüz olan bir addımı atdı. 1969-cu ilin iyul ayında respublikanın rəhbəri seçilən Heydər Əliyev cəmi bir neçə aydan sonra o vaxtki Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyində Azərbaycan dilində nitq söylədi! Bəli, mən bu cümlənin sonuna nidanı təsadüfən qoymadım. Çünki həmin dövrdə belə bir addım həqiqətən böyük bir cəsarət istəyirdi və ən başlıcası mil-lilik, soy-kökə bağlılıq anlamına gəlirdi. Həmin tarixi günü Heydər Əliyev tam 25 ildən sonra – BDU-nun 75 illiyinə həsr edilən iclasda artıq müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi belə xatırlayırdı: "Xatirimdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, ana dilimdə – Azərbaycan dilində danışdım. Bu böyük sensasiya kimi qarşılandı. Nə cür olur ki, respublikanın rəhbəri Azərbaycan dilində çıxış edir və bu dildə heç də pis danışmır. Bəziləri məni bu hadisə münasibəti ilə təbrik etdilər. Minnətdarlıqlarını bildirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar doğrudan da bunu böyük bir hadisə kimi qəbul etdilər".

Böyük öndər yenə həmin dövrdə ölkədə keçirilən bütün tədbirlərdə doğma dilində danışmaqdan çəkinmirdi. Uzun illər boyu sıxışdırılan dilimizin sabahına işıq salır, cəsarəti, şəxsi nümunəsi ilə milyonlarla insanın ürəyindən keçənlərin ifadəçisinə çevrilir, haqq sözünü deyir, dilimizin ən ali mərtəbəyə layiq olduğunu bəyan edirdi.

Sovetləşmə isə bütün SSRİ məkanında sürətlə davam edirdi. Və 1978-ci ildə Azərbaycan SSR-nin Konstitusiyası hazırlanarkən respublikanın rəhbəri Heydər Əliyev şəxsən özü yaradıcı ittifaqlara xəbər göndərməli olmuşdu ki, Konstitusiyaya Azərbaycan SSR-də dövlət dilinin Azərbaycan dili olması barədə xüsusi maddə salınmasını tələb etsinlər. Nəticədə Konstitusiyada "Azərbaycan SSR-nin dövlət dili Azərbaycan dilidir" maddəsi təsbit olundu. Mən bir daha çox əhəmiyyətli və həssas bir məqamı qabartmaq istəyirəm. Bu cəsarətli addım müstəqil bir ölkədə deyil, milli hüquq və azadlıqların məhdudlaşdırıldığı, milli köklərin unutdurulmağa çalışıldığı totalitar imperiyaya bağlı olan bir ölkədə – sovet Azərbaycanında atılırdı. İllər keçəcək, 1995-ci ilin oktyabr ayında Azərbaycan Milli Elmlər Akademiyasında dilimizlə bağlı keçirilən ümumrespublika müzakirəsində Ulu öndər o gərgin mübarizəni və qələbəni belə xatırlayacaqdı: "Xatirimdədir, o vaxt başqa respublikaların rəhbərləri ilə kəskin danışıqlarımız oldu.

Ukraynanın rəhbəri Serbitski ilə mənim kəskin danışıqlarım oldu. O, buna çox etiraz edirdi, belə əsaslandırırdı ki, siz belə yazdığınız halda, gərək biz də yazaq ki, Ukraynanın dövlət dili Ukrayna dilidir. Mən ona dedim ki, sizə heç kəs mane olmur. Siz bizdən də böyük respublikasınız və sovetlər ittifaqında sizin çəkiniz bizimkindən qat-qat artıqdır. Siz istəsəniz, bunu yaza bilərsiniz. Siz nə üçün bizə mane olursunuz. Ancaq biz buna nail olduq. Hesab edirəm ki, bu, o dövrdə, o zamanın şəraitində respublikamızda, ümumiyyətlə, ölkəmizin tarixində çox böyük hadisə oldu".

Bu tarixi nitqin söyləndiyi binada – Elmlər Akademiyasında dilimizin adı ilə bağlı Ulu öndərin rəhbərliyi ilə aparılan gərgin müzakirələr də həmin gün tarixilik qazandı. Həmin gün bütün Azərbaycan ziyalılarının ürəyi, qəlbi həmin məkanla döyünürdü. Dilimizin müstəqil respublikamızda ilk dəfə qəbul ediləcək Konstitusiyada necə adlandırılması məsələsi gündəliyə çıxarılmışdı. Bugünkü kimi xatırlayıram. Ölkənin çox nüfuzlu, tanınan alimləri, yazarları həmin toplantıda idi. Ulu öndər hər kəsə danışmaq, öz mülahizələrini ifadə etmək, təkliflər irəli sürmək və bu təkliflərini müdafiə etmək imkanı və şəraiti yaratmışdı. Hər zaman olduğu kimi müdrikcəsinə, diqqətlə çıxışları dinləyirdi. Dilimizin türk dili, azəri-türk dili, türkcə, azəri türkcəsi, Azərbaycan türk dili, və s. kimi adlandırılmasını təklif edənlər və bu mülahizələrini xalqın etnosu, etnik mənşəyi, etnik mənsubiyyəti ilə əlaqələndirənlər var idi və bunu da deyim ki, özlüyündə onlar da haqlı idilər. Lakin bu mülahizələr Azərbaycan adlı böyük coğrafi bir məkanın varlığını, bu məkanda yaşayan qədim bir xalqın kimliyini, keçmişini, tarixini şübhə altına alırdı. Eyni zamanda, bu mülahizələr Azərbaycanın tarixən guya heç mövcud olmadığına, bu torpaqların erməni torpağı olduğuna dair sərsəm bir ideyanı irəli sürərək, bu

xəstə təxəyyülə bütün dünyanı inandırmaq eşqilə yaşayan və böyük Ermənistan xəyallarını həyata keçirmək üçün hər an tətikdə oturub, uyğun bir məqam gözləyən üzdəniraq qonşularımızın dəyirmanına su tökmək anlamına gəlirdi. Ulu öndər hər kəsi dinlədikdən sonra ayağa qalxdı və dedi: "Tarixi köklərimizə, tarixi keçmişimizə böyük hörmət və ehtiramımızı bildirərək, eyni zamanda, bu gün deməliyik ki, XX əsrdə bizim dilimiz öz inkişaf dövrünü keçib, formalaşıb və gəlib dövlət dili səviyyəsinə çatıb. İndi bunun adını dəyişdirib başqa ad qoymaq heç bir nöqteyi-nəzərdən – həm fəlsəfi, həm Azərbaycanın dövlətçiliyi nöqteyi-nəzərindən, ölkəmizin bu günü və gələcəyi nöqteyi-nəzərindən düz deyil". Həmin gün keçirilən müzakirələri diqqətlə izləyən Azərbaycan vətəndaşları öndərin çıxışını düzgün qiymətləndirməyi bacardılar və bir neçə gündən sonra keçirilən referendumda Azərbaycan Respublikasının Konstitusiyasına və bu Konstitusiyada Azərbaycan üçün təsbit olunan taleyüklü məsələlərə "hə" dedilər.

Heydər Əliyevin dövlət quruculuğunda dil siyasəti və onu inkişaf etdirmək haqqında söylədiyi fikirləri belə ümumiləşdirmək və səciyyələndirmək olar: xalqının mənəvi varlığı kimi ana dilini – Azərbaycan dilini sevmək; ana dilini dərindən və mükəmməl öyrənmək, ana dilinin tədrisini yüksəltmək; dilin zəngin lüğət tərkibindən və söz ehtiyatından bacarıqla istifadə etmək; dilin qayğısına qalmaq, onun saflığını qorumaq, onunla fəxr etmək; dilimizin, nitqimizin gözəlliyini duymaq, öyrənmək, mənimsəmək və bu gözəlliyi hər zaman hər yerdə təbliğ etmək, bu dildə düzgün danışmaqla hamıya nümunə olmaq.

Göründüyü kimi, Heydər Əliyev qurub-yaratdığı Azərbaycanda xalqın mədəni, intellektual, milli-mənəvi inkişafının əsas istiqaməti kimi milli dil siyasətinə böyük əhəmiyyət verirdi, bu yolda bir əsgər kimi mübarizə aparırdı. Ulu öndərin 18 iyun 2001-ci il tarixində imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman da həmin mübarizənin davamı idi.

Onun bu mövzudakı çoxsaylı fikirlərindən birini xatırlayaq: "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, bu həm də azərbaycançılıq məsələsidir".

Gəlinən nəticəyə diqqət edin: "Bu bir azərbaycançılıq məsələsidir". Bəli, məhz bu məsələ bu gün ziyalılarımızı dərindən narahat edir və cəmiyyətdə artıq həyəcanlı sədalar eşidilir.

Diqqətli və hafizəli oxucu bu sətirləri oxuyarkən yəqin ki, Prezident Administrasiyasının rəhbəri, hörmətli akademik Ramiz Mehdiyevin ölkədə böyük bir maraqla və məmnuniyyətlə qarşılanan son iki məqaləsini xatırladı. Söhbət hörmətli Ramiz müəllimin "Azərbaycanın efir məkanı – problemlər və vəzifələr" və "İctimai və humanitar elmlər – zaman kontekstində baxış" adlı məqalələrindən gedir. Yuxarıda adı çəkilən birinci məqalə dərc edildikdən sonra ölkədə dəyirmi masalar keçirildi və məqalədə toxunulan məsələlər, onun həlli yolları müzakirə edildi. Biz həmin müzakirələr zamanı da, ikinci məqalə yayınlandıqdan sonra da hörmətli akademikə mənəviyyatımız və gələcəyimiz, milli dəyərlərimiz və ictimai varlığımız baxımından ölkəmiz və xalqımız üçün həyat əhəmiyyəti kəsb edən məsələləri gündəmə gətirdiyinə və cəmiyyətin bütün fərdlərinin diqqətini bu problemlərə yönəltdiyinə görə mətbuat vasitəsilə öz dərin təşəkkürlərimizi bildirmişdik. Bu gün də yaranan fürsəti dəyərləndirərək, hamımızı narahat edən məsələləri gündəmə gətirdiyi, qaranlıq qalan bir çox məqamları işıqlandırdığı üçün Ramiz müəllimə bir daha minnətdarlığımızı bildiririk. Və yeri gəlmişkən demək istəyirik ki, hər iki məqalədə toxunulan məsələlərin hər biri ayrı-ayrılıqda elmi araşdırmaların mövzusudur və bundan sonra həmin sahələr üzrə tədqiqat aparacaq mütəxəssislər üçün əhəmiyyətli dərslik, zəngin metodik vəsait ağırlığındadır.

Mən hörmətli akademikin "İctimai və humanitar elmlər – zaman kontekstində baxış" məqaləsindən birbaşa dillə bağlı olan bir neçə sitat gətirəcəyəm: "Bu gün canlı danışıq dilimizdə müşahidə olunan bəsitlik, müasir ədəbi əsərlərin qıtlığı, kütləvi informasiya vasitələrinin dilindəki üslub pozuntuları və qəlizlik bizim dilçilərin və ədəbiyyatşünasların araşdırmalarında lazımi yer tutmur. Heç kəsə elə gəlməsin ki, dövlət dili elan edilməsi ilə dillə əlaqəli olan bütün problemlər aradan qaldırılır. Daim dilin keşiyində dayanmalı olan insanlar, təəssüf ki, müasir dövr üçün zəruri sanballı tədqiqatları həyata keçirmirlər". Yenə həmin məqalədən ikinci bir sitat: "Ölkəmizdə Azərbaycan dilinin inkişafına böyük diqqət yetirildiyi bir şəraitdə Azərbaycan dilini müstəqil öyrənmək üçün əldə cüzi də olsa müasir elmi vəsait hələ də yoxdur. Müasir dünya elmində dil problemi fəlsəfi problem kimi yozulduğu halda, biz "sovet dilşünaslığı" standartlarından uzaqlaşa bilmirik."

Ulu öndər "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" verdiyi fərmanda Azərbaycan Respublikasının onillik inkişaf təcrübəsi haqqında danışarkən bunu da qeyd etmişdi ki, "…Ana dilimizin öyrənilməsi və tətbiqi sahəsində də hələ görüləsi işlər çoxdur. Ölkəmizin orta və ali məktəblərində Azərbaycan dilinin müasir dünya standartlarına, milli-mədəni inkişaf tariximizin tələblərinə cavab verən tədris işinin

təkmilləşdirilməsinə ehtiyac vardır. Bir çox kütləvi informasiya vasitələrində, rəsmi yazışmalarda, kargüzarlıq və s. sahələrdə Azərbaycan ədəbi dilinin normalarına lazımınca əməl edilmir. Azərbaycan dilinin reklam işində istifadə edilməsində ciddi qüsurlar müşahidə edilir. Əcnəbi dilli lövhələr gənc nəslin azərbaycançılıq ruhunda tərbiyəsinə mənfi psixoloji təsir göstərir. Ölkə ərazisində yayımlanan televiziya kanallarının əksəriyyəti xarici dillərdə fəaliyyət göstərir".

Ulu öndər bu narahatlığını hələ on il əvvəl bildirsə də, bu gün də ölkənin kütləvi informasiya vasitələrində – bu istər qəzet olsun, istər televiziya olsun, istər bədii kitab olsun – Azərbaycan dilinin leksik qanunları, qrammatik qaydaları sanki unudulur və ya yeni bir üslub gətirir. Özüm yazıçı ailəsində böyümüşəm və anamın hər kitabı nəşr edilərkən onun nəinki hər bir səhifəsinin, hər bir cümləsinin, hər bir kəlməsinin, hətta hər bir durğu işarəsinin dəfələrlə yoxlandığının, həm redaksiyanın, həm də kitab müəllifinin böyük məsuliyyətinin, cavabdehliyinin şahidi olmuşam. Bu gün əlinə bir mətbu nümunəsi alırsan. Əsərin və ya məqalənin başlığı ilə içərisindəkilər düz gəlmir, sayılası mümkün olmayan imla səhvləri tapırsan. Cümlənin əvvəli ilə sonu uyğunlaşmır. Hər gün rastlaşdığım çoxsaylı xətalan indi bir-bir sadalamaq çox vaxt apara bilər. Amma son zamanlarda Azərbaycan dilinə gətirilən "yeni qayda"nı qeyd etməyə bilmirəm. Hər birimiz orta məktəbdə Azərbaycan dili dərsində öyrənmişik ki, say bildirən kəlmədən sonra isim gəldiyi halda isim cəm şəkilçisi qəbul etmir. Bu, bir aksiomdur və Azərbaycan dilinin büllur saflığının başlıca amillərindəndir. İndi gəlin baxaq görək həmin qanun yeni "kəşf"dən sonra hansı hal alıb. Məsələn, "On nəfər şagirdlər", "bir neçə qadınlar", "yüz ədəd kitablar" və s. Bu nümunələri artırmaq da olar. Ən dəhşətlisi odur ki, bu kimi ifadə tərzi artıq ziyalı təbəqənin də nitqində eşidilir.

Bir neçə kəlmə də "ə" hərfi və onun işlənməsi haqqında demək istəyirəm. Təbii ki, mən texnologiyanı o qədər də dərindən bilmirəm, amma düşünürəm ki, artıq 15 ilə yaxındır latın qrafikalı yazıya keçən bir ölkədə televiziya ekranlarını işğal edən, belə demək mümkündürsə, pul tələsi SMS-lərdə "ə" hərfi problemini aradan qaldırmaq olar. Çünki həmin SMS-ləri, Allah eləməmiş, təsadüfən gözün sataşıb oxuyanda, özün öz tələffüzündən qucaq-qucaq tər tökürsən. Sanki ya bir xarici vətəndaş bu kəlmələri tələffüz edir, ya da ki, uzun müddət vətənindən uzaqda qalan bir azərbaycanlı. Sizcə necə görünür: "Hörmetli millet vekilleri, sizin nezerinize çatdırmaq isteyirem ki…" Gülməlidir, elə deyilmi?

Və yaxud küçələrdəki tanıdıcı reklam lövhələri. Küçədəki bəzi reklam lövhələrini ən savadlı insan belə oxumağa çətinlik çəkir. Çünki bir kəlmənin içərisindəki hərflərin biri latın, digəri rus əlifbası ilə yazılır. Bəzən reklam tamamilə ya rus, ya da ingilis dilində olur. Hələ şükür olsun ki, çincə yazmırlar.

Yeri gəlmişkən daha bir məqama toxunmaq istəyirəm. Doğma Azərbaycan dilində danışmağı özünə rəva bilməyənlər, xarici bir dildə, çox vaxt rusca danışmağı üstünlük, mədəniyyət hesab edənlər! Lütfən oyanın. Siz müstəqil bir ölkədə yaşayırsınız və bu ölkənin adı Azərbaycandır! Sovet rejiminin, rus kultunun tuğyan etdiyi bir dövrdə doğulub, şüurlu həyatlarının böyük bir hissəsini həmin illərdə yaşayanları, rusca oxuyub, rusca düşünənləri bəlkə də başa düşərəm. Ancaq azad, suveren, müstəqil bir ölkədə, azərbaycanlı atadan və azərbaycanlı anadan dünyaya gələn bir uşağın, bir yeniyetmənin, bir gəncin öz dilində danışmaması və ya danışa bilməməsi nə başa düşüləndir, nə də bağışlanandır.

Hamımıza məlumdur ki, 2004-cü ildə ölkə Prezidenti cənab İlham Əliyev "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", 2007-ci ildə isə "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında" sərəncamlar imzaladı. Bu sərəncamlar ölkə rəhbərinin ana dilinə qayğısının və sevgisinin nümunəsi, öz vətəndaşlarını daha savadlı, daha məlumatlı görmək arzusu idi. Bu sərəncamlar ölkə rəhbərinin, xalqın özünə qayğısında, xüsusilə gənc nəslin, böyüməkdə olan uşaqlarımızın milli dəyərlərimizə, milli mənəviyyatımıza daha sürətlə və uğurla sahib çıxmasında göstərdiyi yardım idi. Cənab Prezidentin həmin sərəncamları ilə illər boyu hər birimizin evlərimizin bəzəyi olan kitablar yenidən çap olunmağa başladı. Çap olundu ki, bizdən sonrakılar da oxusunlar. Çap olundu ki, dillərini – səlis Azərbaycan dilini unutmasınlar, əksinə daha dərindən öyrənsinlər. Yəqin ki, həmin kitabların içərisində yer alan ölməz Mirzə Cəlilin "Anamın kitabı"nı oxuyanlar da olacaq. Və mən əminəm ki, əsərdə ana dillərindən başqa bütün dillərdə danışan, bircə Azərbaycan dilini özlərinə yaraşdırmayan üç qardaşın bacısı Gülbaharın, nəhayət, öz qardaşlarının nadanlığı qarşısında dözməyərək onların bütün xarici kitablarını yandırdıqdan sonra söylədiyi son monoloqunu diqqətlə oxuyacaqlar: "…Qaldı bircə kitab. Bu da anamın kitabı". Bu kitabda vaxtilə ataları öz əliylə yazıb: "Mən etiqad edirəm ki, mənim də balalarım dünyada hər yanı gəzib dolansalar, yenə əvvəl-axır anaları Zəhranın ətrafında gərək dolanalar, çünki ay və ulduz şəmsi zərrələri olan kimi, bunlar da analarının ay və ulduzlarıdırlar. Vay o kəsin halına ki, təbiətin həmin qanununu pozmaq istəyə! Onun vicdanı və insafı ona ömür boyu əziyyət edəcək, nə qədər canımda nəfəs var, peşman olacaq".

Mirzə Cəlildən gətirdiyim bu sitat bəlkə bir təsadüf, bəlkə bir zərurətdir. Mirzə Cəlil 1869-cu ildə əzəli, əbədi Azərbaycan torpağı olan Naxçıvanda dünyaya gəlib. Ondan üç il sonra – 1872-ci ildə yenə Naxçıvanda

Məmməd Səid Ordubadi doğulub. 1882-ci ildə isə yenə həmin qədim torpaqda Hüseyn Cavid anadan olub. Hər üçü XIX əsrin sonlarında həyata gəliblər. Bütün ömürlərini xalqın maariflənməsi, savadlanması, dilinə, mədəniyyətinə sahib çıxması yolunda mübarizəyə həsr ediblər. Bu yolda məhrumiyyətləri qazandıqlarından çox olub. Amma getdikləri doğru yoldan dönməyiblər. Bu üç böyük mütəfəkkir artıq sadəcə Naxçıvanda deyil, bütün Azərbaycanda sevildikləri, kitablarının, əsərlərinin ev-ev, əl-əl dolaşdığı bir zamanda yenə həmin torpaqda – qədim Naxçıvanda sadə bir ailədə bir oğlan uşağı dünyaya gəldi. Həmin oğlanın adını Heydər qoydular. Həmin balaca Heydər ağlıyla, fərasətiylə bütün yaşıdlarından seçilirdi. Gecə-gündüz oxuyurdu, öyrənirdi. Cavidi oxuyurdu, Mirzə Cəlili oxuyurdu, Ordubadini oxuyurdu, yüzlərlə klassik dünya ədəbiyyatını oxuyurdu. Və oxuduqları onun uşaq beyninə, uşaq qəlbinə bir yol diktə edirdi. Bu yol uzun, keşməkeşli bir mübarizə yolu idi. Bu yolun başlanğıcında da, sonunda da doğma Azərbaycanı və doğma xalqı vardı. O zamanlar heç kim – nə körpənin valideynləri, nə qonşuları, nə qohumları – həmin balaca oğlanın nə düşündüyünü bilmirdi. Onlar bunu da bilmirdilər ki, bu balaca oğlan böyüyəcək, bütöv bir xalqın qüruruna, şöhrətinə, sevgisinə – Atasına çevriləcək.

Küçədəki bəzi reklam lövhələrini ən savadlı insan belə oxumağa çətinlik çəkir. Çünki bir kəlmənin içərisindəki hərflərin biri latın, digəri rus əlifbası ilə yazılır. Bəzən reklam tamamilə ya rus, ya da ingilis dilində olur. Hələ şükür olsun ki, çincə yazmırlar.

**“Milli Məclis”.**-2010.-№1-2.-S.12-19.

## MÜASİR İNKİŞAF YOLUNUN BANİSİ

**Süleyman İSMAYILOV,**
Azərbaycan RespublikasıPrezident Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri,
YAP Siyasi Şurasının üzvü

**Artıq yarım əsrə yaxındır ki, Azərbaycan deyiləndə ilk növbədə Ulu öndər Heydər Əliyev yada düşür. Azərbaycanın müasir tarixini bu böyük şəxsiyyətin keçdiyi mənalı və şərəfli həyat yolundan ayrı təsəvvür etmək olmur. Keçən əsrin 70-ci illərindən başlayaraq 7-8 illik bir fasilə ilə ömrünün sonunadək respublikaya rəhbərlik etmiş bu müdrik və uzaqgörən dövlət xadimi Azərbaycanın bugünkü və gələcək inkişaf yolunu müəyyən etmiş, onun iqtisadi və siyasi müstəqilliyinin əsasını qoymuş, bu müstəqilliyin əbədi və möhkəm bünövrəsini yaratmışdır.**

Vətənini və millətini ürəkdən sevən, bütün ömrünü onun tərəqqisinə həsr edən Heydər Əliyevin həyat fəlsəfəsi onun bu sözlərində çox gözəl ifadə edilmişdir: “İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezident kimi mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib”.

Heydər Əliyevin yadigarı və şah əsəri olan müasir Azərbaycan 1993-cü ildən başlayaraq ona görə belə böyük sürətlə inkişaf etmişdir ki, bu ölkəyə onun kimi təcrübəli siyasətçi və dövlət xadimi rəhbərlik etmiş, o, xalqı və respublikanın bütün resurslarını səfərbər edə bilmiş, ilk növbədə Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq üçün olduqca zəruri olan sabitlik və əmin-amanlığı bərpa etmiş, böyük islahatların və quruculuq işlərinin başlanmasına zəmin yaratmışdır.

Ulu öndər çox gözəl bilirdi ki, ölkədə sabitlik bərpa edilməsə heç bir dövlət quruculuğundan, heç bir islahatdan, heç bir inkişafdan və tərəqqidən danışmaq olmaz. O, deyirdi: “Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz. Bizim xalq və tarix qarşısında böyük məsuliyyətimiz var. Biz müstəqil Azərbaycan dövləti yaradırıq və onu elə yaratmalıyıq ki, daim yaşasın, heç bir qüvvə, heç bir dövlət gəlib bizim xalqımızın milli azadlığını, müstəqilliyini əlindən ala bilməsin”.

Heydər Əliyevin xalqın tələbi və təkidi ilə yenidən Azərbaycan rəhbərliyinə qayıtdığı dövrdə ən vacib məsələ ölkədə baş alıb gedən dərəbəyliyin aradan qaldırılması, insanların asudə və arxayın yaşamasının təmin edilməsi, pərakəndə şəkildə olan ordu dəstələrindən vahid ordunun formalaşdırılması, bunun üçün müvəqqəti də olsa müharibənin dayandırılması, atəşkəs rejiminin əldə olunması məsələləri daha aktual idi. Bu, elə bir dövr idi ki, artıq Azərbaycan iqtisadiyyatı çox bərbad vəziyyətə düşmüş, Heydər Əliyevin respublika rəhbərliyində olmadığı müddətdə onun 70-ci illərdə yaratdığı iqtisadi potensial xeyli zəifləmiş, 90-cı il səviyyəsindən də aşağı düşmüşdü. Bu dövrdə xarici təzyiqlərlə yanaşı ölkəni içəridən sarsıdan bir sıra qüvvələrin Azərbaycan dövlətini parçalamaq, onun müstəqilliyini zərbə altında qoymaq istəyən daxili düşmənlərin törətdikləri qəsdlərin, dövlət çevrilişi cəhdlərinin qarşısı məharətlə və xalqın birliyi ilə aradan qaldırıldı, ölkədə dinc quruculuq işlərinə başlamaq üçün şərait yarandı.

Ümummilli liderimiz çox gözəl bilirdi ki, Azərbaycanın ümumdünya ailəsində layiqli yerini tutması üçün ilk növbədə müasir dünyanın tələblərinə uyğun olan demokratik dövlət qurmaq lazımdır. Bunun üçün müstəqil dövlətin əsas qanunu – yeni Konstitusiyası qəbul edilməli, bütün qanunvericilik bazası yeniləşdirilməli, demokratik təsisatlar formalaşdırılmalı və demokratiyanın inkişafı üçün real şərait yaradılmalıdır. Yəni dünya ölkələrinin uzun bir dövrdə keçdiyi mərhələni Azərbaycan çox qısa bir müddətdə başa vurmalı, özünün müasir və dünyəvi dövlət olduğunu təsdiq etməlidir. Heydər Əliyev deyirdi: “Biz ölkədə demokratiyanı ona görə inkişaf etdirmirik ki, bunu bizdən Avropa Şurası tələb edir. Biz demokratiyanı ona görə inkişaf etdiririk ki, ölkəmiz demokratik, hüquqi dövlət quruculuğunu özü üçün inkişaf yolu seçmişdir”.

Bu prinsipi əsas götürən Heydər Əliyev qısa bir müddətdə bilavasitə özünün rəhbərliyi altında Azərbaycan Respublikasının yeni Konstitusiyasını hazırlamaq üçün xüsusi komissiya yaratdı və bu komissiya çox gərgin, səmərəli işləyərək əsas qanunun layihəsini geniş müzakirələrdən keçirməklə Ümumxalq Referendumuna çıxardı və artıq 1995-ci ildə bu Konstitusiya xalq tərəfindən yekdilliklə qəbul edildi. Konstitusiyada Azərbaycanın milli xüsusiyyətləri, Azərbaycan xalqının maraqları, beynəlxalq hüquq normaları tam nəzərə alındı və dövlətin idarə olunmasının əsas prinsipləri müəyyənləşdirildi.

Heydər Əliyev ölkənin müstəqilliyini qorumağın, onu əbədiləşdirməyin ilk növbədə ölkə iqtisadiyyatını dirçəltməkdən asılı olduğunu çox gözəl bilirdi. Lakin Azərbaycanda sovet dövründən mövcud olan müəssisələr, zavod və fabriklər demək olar ki, tam dayanmış, iqtisadi əlaqələr tamamilə pozulmuş, işsizlik geniş miqyas almış, ölkə ciddi ərzaq, xüsusilə taxıl çatışmazlığı təhlükəsi ilə üz-üzə qalmışdı. Bəzən Azərbaycanın taxıl ehtiyatları əhalinin 2-3 günlük tələbatını güclə ödəyirdi. Şimali Qafqazdan dəmir yolunun bağlı olması, Həştərxan limanında isə dənizin donması alınmış taxılın respublikaya gətirilməsini qeyri-mümkün edirdi. Ölkənin maliyyə ehtiyatları olduqca məhdud idi və Azərbaycanda 1990-1993-cü illərdə hökm sürən qeyri-stabil vəziyyətə görə beynəlxalq maliyyə qurumları ölkəyə vəsait ayırmaq istəmir, ölkənin dağılan iqtisadiyyatını dirçəltmək üçün tələb olunan lazımi vəsaiti tapmaq müşkül məsələyə çevrilirdi.

Respublikanın əsas sənaye sahələrindən olan neft sənayesində də vəziyyət çox acınacaqlı idi. Hasilat gündən günə aşağı düşür, yeni quyuların qazılması demək olar ki, dayanmış, mövcud quyuların təmiri və bərpası üçün isə vəsait çatışmırdı.

Bu dövrdə Heydər Əliyev ilk növbədə Azərbaycanın əsas təbii sərvətlərindən olan neftin xalqın mənafeyi üçün istifadə olunmasını təmin edən neft strategiyasını müəyyənləşdirib həyata keçirməyə başladı. Qısa müddətdə, 1994-cü il sentyabrın 20-də dünyanın 12 ölkəsini təmsil edən aparıcı şirkətlərlə "Əsrin müqaviləsi" imzalandı. Bu, Azərbaycana həm iqtisadi, həm də siyasi cəhətdən böyük dividentlər gətirdi, bu müqavilənin bağlanmasına hər vasitə ilə mane olan bəzi dövlətlərin istəklərini puça çıxardı və Azərbaycanın müstəqilliyinin dönməzliyi üçün möhkəm əsas yaratdı. Heydər Əliyevin uğurlu neft strategiyası Azərbaycanın bütün sonrakı qələbələrinin əsasını qoydu.

"Əsrin müqaviləsi"nin Azərbaycanın taleyindəki əvəzsiz rolundan və əhəmiyyətindən çox danışılmış, çox deyilmişdir. Heydər Əliyevin başladığı yolu, qarşıya qoyduğu vəzifələri ondan sonra böyük müvəffəqiyyətlə davam etdirən, Heydər Əliyev ideyalarını bu gün də reallaşdırmaqda davam edən Prezident İlham Əliyev bunu öz çıxışlarında dəfələrlə qeyd etmişdir. 2009-cu il sentyabrın 15-də "Əsrin müqaviləsi"nin 15-ci ildönümünə həsr olunmuş təntənəli mərasimdə bu müqavilənin əhəmiyyətini belə qiymətləndirmişdir: "Mən qeyd etmək istəyirəm ki, bizim bugünkü inkişafımız, bugünkü nailiyyətlərimiz, Azərbaycanın həqiqətən müstəqil ölkə kimi dünya birliyinə qədəm qoyması böyük dərəcədə "Əsrin müqaviləsi"nin imzalanması ilə bağlıdır. Bu, çox cəsarətli və müdrik addım idi. Ulu öndər Heydər Əliyev tərəfindən atılan bu addım Azərbaycan xalqının rifah halının yaxşılaşmasına, Azərbaycanın hərtərəfli inkişafına xidmət edir. O çətin və ağır şəraitdə həm ölkə daxilində gedən çox mürəkkəb proseslər, eyni zamanda Azərbaycanın ətrafında cərəyan edən mənfi meyllər Azərbaycanı çox ağır bir vəziyyətə qoya bilərdi. Əgər Heydər Əliyev cəsarət, uzaqgörənlik, müdriklik göstərməsə idi Azərbaycan çox ağır vəziyyətə düşə bilərdi. Əgər kontrakt imzalanmasaydı, indi təsəvvür etmək çətindir ki, Azərbaycanın bugünkü vəziyyəti necə ola bilərdi. Tam qətiyyətlə deyə bilərəm ki, bu gün biz indiki uğurlardan danışa bilməzdik".

Ümummilli lider ölkənin əsas təbii sərvətlərindən biri olan nefti Azərbaycan xalqının öz sərvətinə çevirdikdən sonra ondan səmərəli bəhrələnmək yollarını da müəyyənləşdirmiş, bu gəlirlərin gələcək nəsillər üçün qorunub saxlanması qayğısına da qalaraq 1999-cu ilin dekabrında Dövlət Neft Fondunu yaratmışdır. Heydər Əliyev neft strategiyasının mühüm elementlərindən biri olan Dövlət Neft Fondu yaradılarkən onun aktivləri cəmi 271 milyon ABŞ dollarına bərabər idisə, bu gün həmin aktivlər 15 milyard dollara yaxındır. Ümumiyyətlə isə 2009-cu ildə Azərbaycanın strateji valyuta ehtiyatları təqribən 3 milyard dollar artaraq 20 milyard dolları ötüb keçmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ulu öndərin 86-cı ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 5 illiyi münasibətilə təntənəli mərasimdə qeyd etdiyi kimi, Heydər Əliyevin rəhbərliyi ilə məhz 1993-2003-cü illərdə qoyulmuş möhkəm təməl, başlanmış islahatlar, irəli sürülmüş təşəbbüslər bugünkü reallığı mümkün edibdir. Məhz o illərdə iqtisadi sahədə, energetika sahəsində böyük addımlar atılmışdır, Heydər Əliyevin neft strategiyası başlanmışdır və bu gün də bu strategiya uğurla davam etdirilir. Bütün bugünkü uğurlara görə biz Ulu öndərə borcluyuq.

Bu gün Azərbaycanın hərtərəfli və çoxşaxəli iqtisadi inkişafından geniş bəhs olunur. Lakin bir daha xatırlatmaq lazımdır ki, Heydər Əliyevin neft strategiyası ilə yanaşı böyük cəsarət və qətiyyət tələb edən özəlləşdirmə proqramları, torpaq islahatları da çox böyük əhəmiyyət daşıyırdı və bugünkü qələbələrin əsasını təşkil edən bu islahatlar aparılmasaydı Azərbaycan iqtisadiyyatı belə sürətlə inkişaf etməzdi. Onun rəhbərliyi ilə hazırlanıb həyata keçirilmiş birinci və ikinci dövlət əmlakını özəlləşdirmə proqramlarının yerinə yetirilməsi sayəsində ölkədə sosializm dövründən qalmış iqtisadi münasibətlər yeni məcraya yönəldi, orta və kiçik sahibkarlıq inkişaf etməyə başladı, bazar iqtisadiyyatı münasibətləri təşəkkül tapdı, ölkədə əhalinin zəruri mallara tələbatını ödəyən sahibkarlar təbəqəsi formalaşdı. İndi respublikada ÜDM-nin 85 faizinin özəl sektorun payına düşməsi təsadüfi deyildir.

Heydər Əliyevin 1996-cı ildə başladığı özəlləşdirmə proqramlarının həyata keçirilməsi nəticəsində dövlət müəssisələrinin sağlamlaşdırılması, özəl sektorun inkişaf etməsi, əhalinin xüsusi mülkiyyət sahibinə çevrilməsi, həmçinin xarici iş adamlarının respublikaya cəlb olunması hesabına Azərbaycanda böyük sərmayəçilər qrupu təşəkkül tapdı. Dövlətsizləşdirmə siyasəti nəticəsində 45 mindən çox kiçik müəssisə özəlləşdirilmiş, 2000-ə yaxın səhmdar cəmiyyəti yaradılmış, ölkədə 150 min nəfərlik səhmdar ordusu formalaşmış, 400 mindən artıq mülkiyyətçi isə əmlak sahibinə çevrilmişdir. Bütün bunlar Azərbaycanda sosialist planlı iqtisadiyyatından bazar iqtisadiyyatına keçid dövrünün başa çatdığını göstərən amillərdir. Ölkə iqtisadiyyatının inkişafına təkan verən əsas vasitə iqtisadiyyata qoyulan investisiyalardır. Vaxtilə Azərbaycanın investisiya cəlb etməkdə üzləşdiyi çətinliklər çoxdan geridə qalmışdır. Artıq Azərbaycan investisiya qoyuluşu üçün ən etibarlı və ən əlverişli ölkələrdən biri hesab olunur. Azərbaycan belə investisiyalardan imtina etmir. Ən sərfəli şərtlərlə ən vacib layihələrə uzunmüddətli və aşağı faizli kreditlər götürməkdən çəkinmir.

Azərbaycanın yüksək iqtisadi inkişafı, onun etibarlı tərəfdaş olması, ölkədə yaradılan normal biznes mühiti beynəlxalq maliyyə təşkilatlarının ölkəmizə inamını və etibarını gündən-günə artırır.

Bu baxımdan dünyadakı qlobal böhrana baxmayaraq, Ümumdünya Bankının keçən il Azərbaycana 23 il müddətinə 450 milyon ABŞ dolları məbləğində kredit ayırması təqdirəlayiq hal sayılmalıdır. Ölkənin dəmir yol nəqliyyatının müasirləşdirilməsi, Bakı şəhərindən Böyükkəsik stansiyasına qədər olan 300 kilometrlik dəmiryol xəttinin yenidən qurulması üçün ayrılan bu kredit həmin yolda hər il 15 milyon ton yük daşınmasına, Azərbaycanın regionda əsas nəqliyyat arteriyasına çevrilməsinə, bu yolda qatarların sürətinin 100 kilometrə çatdırılmasına, ən başlıcası isə respublikada yüzlərlə yeni iş yerlərinin yaradılmasına kömək edəcəkdir.

2009-cu il ərzində Azərbaycana 9,2 milyard dollar məbləğində investisiya qoyulmuşdur. Bu vəsaitin 7,3 milyardı daxili sərmayələrdir.

Bununla yanaşı indi Azərbaycan özü xarici ölkələrə investisiya qoyur. Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstandan keçən hissəsini məhz Azərbaycan maliyyələşdirir və bu yolun çəkilməsi gələcəkdə Azərbaycana həm iqtisadi, həm də siyasi cəhətdən böyük dividentlər gətirəcəkdir.

Bu gün Azərbaycanda yaradılmış yeni sənaye müəssisələri rəqabət qabiliyyətli məhsullar istehsal edə bilir və bu müəssisələrdə ən müasir texnologiyalardan istifadə olunur. Xüsusilə son 6 ildə yüzlərlə belə müəssisə açılmış, minlərlə insan işlə təmin olunmuşdur.

Ulu öndər Heydər Əliyevin başladığı və bu gün uğurla davam etdirilən islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatının təkcə 2004-2008-ci illərdə 2,6 dəfə artması və bunun dünyada ən yüksək göstərici olması nəinki bizim hər birimizin, eləcə də dünyada yaşayan soydaşlarımızın qəlbini qürurla döyündürür. Artıq 2008-ci ildə Azərbaycan 1990-cı ilin iqtisadi göstəricilərinin səviyyəsini 2 dəfə üstələmişdir.

Azərbaycan iqtisadiyyatının uğurlarından bəhs edən ölkə Prezidenti İlham Əliyev ötən il Bakı Dövlət Universitetinin 90 illik yubileyində demişdir: “Azərbaycan iqtisadi cəhətdən artıq oturuşmuş dövlət kimi tanınır. Mən hesab edirəm ki, biz artıq iqtisadi sahədə keçid dövrünü başa vurmuşuq… Bizim uğurlarımızın əsas səbəbi ölkədə aparılan siyasi və iqtisadi islahatlardır”.

2009-cu ildə adambaşına düşən ümumi daxili məhsulun həcmi 7,9 faiz artaraq 3917 manata və yaxud 4874 ABŞ dollarına bərabər olmuşdur. Son 3 ildə Azərbaycan adambaşına düşən milli məhsulun həcminə görə öz mövqeyini dünya üzrə 32 pillə yaxşılaşdırmışdır.

Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının bugünkü inkişafına zəmin yaradan əsas islahatlarından biri də MDB ölkələri arasında birinci olaraq torpaq islahatının uğurla başlanıb həyata keçirilməsidir. Xatırlatmalıyıq ki, keçmiş respublikaların bir çoxunda, o cümlədən Rusiyada bu çətin islahat hələ başa çatdırılmayıb. Uzun illər öz torpağının sahibi ola bilməyən Azərbaycan kəndlisi nəhayət öz arzusuna qovuşdu. Olduqca mürəkkəb bir proses olan torpaq islahatını həyata keçirmək dövlət rəhbərindən böyük iradə və qətiyyət tələb edirdi. Bu islahatın əsas prinsipi ədalət, obyektivlik, real tarixi şəraitin nəzərə alınması idi. Torpaq islahatının aparılması zamanı kənd yerlərində yaşayan hər bir insanın öz zəhməti ilə yaşaya bilməsi, ölkədə ərzaq bolluğu üçün zəmin yaradılması mühüm məsələ kimi qarşıya qoyulurdu. Eyni zamanda islahat zamanı dövlət torpaq fondu, yerli özünüidarəetmə orqanlarının torpaqları ilə yanaşı gələcək nəsillərin torpaqla təmin olunması üçün ehtiyat da nəzərdə tutulmuşdur. Məhz bu islahatların nəticəsidir ki, hazırda Azərbaycan özünün ərzaq təhlükəsizliyini təmin etmiş, vaxtilə ölkə əhalisinin tələbatını ödəmək üçün taxılın çox hissəsini ixrac edən bir respublika 2009-cu ildə 3 milyon tona yaxın taxıl istehsal etmişdir ki, bu da əvvəlki illərdən 2-3 dəfə çoxdur.

Qeyd etmək lazımdır ki, ulu öndərin tövsiyəsi ilə torpaq islahatına başlanıldıqdan az sonra onun becərilməsi üçün müvafiq texnikanın, mineral gübrələrin verilməsi, digər aqrotexniki xidmətlərin göstərilməsi üçün şərait yaradıldığına görə Azərbaycanda kənd təsərrüfatı istehsalı son bir neçə ildə xeyli artmış, 2009-cu ildə isə bu artım 3,5 faiz təşkil etmişdir. Artıq kənd təsərrüfatı istehsalına təkan verən yeni-yeni emal müəssisələri yaradılır, kənd təsərrüfatında çalışanlar aqrolizinq vasitəsilə lazımi texnika, mineral gübrə, cins

mal-qara və məhsuldar toxum növləri ilə təchiz edilirlər ki, bu da Azərbaycanın ərzaq təhlükəsizliyinin daha yaxşı təmin edilməsinə şərait yaradır.

Heydər Əliyev Azərbaycanda qeyri-neft sektorunun əsas sahələrindən biri olan kənd təsərrüfatının inkişafını bu sahəyə dövlət dəstəyinin artırılmasında, kəndli fermer təsərrüfatlarına güzəştli şərtlərlə kreditlər verilməsində, onların uzun müddət vergilərdən azad edilməsində, müasir tələblərə cavab verən emal müəssisələrinin yaradılmasında, Azərbaycanda emal olunan məhsulların dünya bazarına çıxarılmasında görürdü. Ulu öndər iqtisadi islahatların qısa müddətdə həyata keçirilməsi üçün qanunvericilik bazasının yaradılmasına xüsusi əhəmiyyət verirdi. 1996-cı ilin sentyabrında qətiyyətlə bildirirdi: “Artıq iqtisadi islahatları həyata keçirmək üçün əsas qanunlar qəbul olunubdur…İndi bu qanunların həyata keçirilməsi bizim qarşımızda duran əsas vəzifədir. Çünki bütün iqtisadiyyatın inkişafı, respublikanın əhalisinin rifah halının yaxşılaşması yalnız və yalnız iqtisadi islahatların keçirilməsi yolu ilə iqtisadiyyatın irəliləməsini təmin etməklə bağlıdır”.

İslahatların keçirilməsi isə heç də asanlıqla başa gəlmir, bir çox müqavimətlərlə rastlaşırdı. Ulu öndər bu müqavimətləri qətiyyətlə aradan qaldırır, islahatlardan əldə ediləcək nəticələri inandırıcı surətdə dönə-dönə izah edir, bu işdə mühafizəkarlıq göstərənləri kəskin tənqid edirdi. Xüsusilə torpaq islahatının Azərbaycan üçün böyük uğurlar gətirəcəyinə arxayın olduğunu izah edərək bildirirdi: “Mən əminəm ki, bu islahatları tam həyata keçirəndən sonra torpaq xüsusi mülkiyyətə keçəndən sonra bunların səmərəliliyi qat-qat artacaqdır və Azərbaycan kənd təsərrüfatı məhsullarının istehsalında, mən sizə tam qətiyyətlə deyirəm ki, Qafqazda birinci yerdə olacaqdır. Heç bir respublika Azərbaycan qədər imkanlara malik deyil”.

Ümummilli lider təkcə aqrar sahədə deyil, bütün sahələrdə islahatların aparılmasına böyük səy göstərirdi və bunu hamıdan tələb edirdi. O, Azərbaycanın iqtisadi inkişafının əsasını islahatların cəsarətlə və sürətlə aparılmasında görür və deyirdi: “Ona görə biz bu yolla getməliyik, cəsarətlə getməliyik, çox sürətlə getməliyik və buna nail olmalıyıq”.

Ümumiyyətlə, ulu öndərin həyata keçirdiyi islahatlar və respublikanın iqtisadiyyatını inkişaf etdirmək üçün gördüyü tədbirlər 1995-2003-cü illərdə Azərbaycan iqtisadiyyatının dirçəlməsinə və xeyli yüksəlməsinə səbəb olmuşdur. Bu illərdə ümumi daxili məhsul 90,1 faiz, dövlət büdcəsinin gəlirləri 3 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 25,2 faiz, kənd təsərrüfatı istehsalının həcmi 53,9 faiz, xarici ticarət dövriyyəsi, o cümlədən ixrac 4 dəfə artmış, bütün maliyyə mənbələri hesabına iqtisadiyyata yönəlmiş investisiyaların ümumi məbləği 20 milyard ABŞ dollarını keçmişdir.

Bütün islahatların aparılmasını sürətləndirmək üçün ölkənin mövcud idarəetmə strukturunun da təkmilləşdirilməsinin vacibliyini hamıdan yaxşı dərk edən, bunun kəsə yollarını da bilən və göstərən Heydər Əliyevin özü idi. Qısa müddətdə ölkənin idarəetmə strukturunu yeni şəraitə uyğunlaşdırmaq, sovet dövründə formalaşmış saysız-hesabsız idarəetmə orqanlarının əvəzinə daha çevik və mütəhərrik fəaliyyət göstərməyə qadir olan, yığcam strukturlu idarəetmə orqanlarının yaradılması ölkənin bütün sahələrdə daha yaxşı idarə olunmasına, maliyyə vəsaitinin səmərəli istifadəsinə, bürokratik maneələrin azaldılmasına imkan verirdi. Bu məqsədlə təkcə 1998-ci ildən sonra Heydər Əliyev bununla əlaqədar 31-dən çox fərman və 21-dən çox sərəncam imzalamışdır. Yalnız 2001-ci ildə 21 nazirlik və idarə ləğv edilmiş, 7 nazirlik və idarə yenidən yaradılmış, həmin strukturlarda işləyənlərin sayı xeyli azaldılmışdır.

Ümummilli lider ölkə iqtisadiyyatının inkişafının əsas vasitələrindən biri olan energetika sənayesinə xüsusi əhəmiyyət verir və Azərbaycanın enerji təhlükəsizliyinin təmin olunmasına istər sovet dönəmində, istərsə də müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə olduqca böyük diqqət yetirirdi. 70-ci illərdə onun bilavasitə təşəbbüsü və rəhbərliyi ilə respublikada tikilmiş nəhəng elektrik stansiyaları və su dəryaçalarının davamı olaraq Yenikənd, Vayxır su elektrik stansiyalarının, Şimal DRES-in inşası, hələ sovet dövründə tikilmiş elektrik stansiyalarının yenidən qurulması, onların gücünün artırılması, daha müasir, daha səmərəli texnoloji avadanlıqlarla təchiz olunması üçün əlindən gələni edirdi. O, ölkənin məhdud maliyyə ehtiyatlarını bu sahəyə yönəltməklə gələcəkdə bütün sahələrin inkişafı üçün zəmin yaradırdı.

Bu gün Azərbaycanın enerji təhlükəsizliyi tam təmin olunmuşdur. Heydər Əliyevin bu sahədə gördüyü işlər onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən daha sürətlə davam etdirilmiş, Azərbaycan artıq elektrik enerjisi idxal edən ölkədən elektrik enerjisi ixrac edən ölkəyə çevrilmişdir.

Təkcə 2009-cu ildə Azərbaycanda 840 meqavatlıq yeni enerji gücləri yaradılmışdır. Hazırda bu güclərin artırılması, 2010-cu ildə əlavə olaraq azı 400 meqavat gücün istifadəyə verilməsi üçün ciddi işlər görülür. Eyni zamanda Prezident İlham Əliyevin təsdiq etdiyi alternativ və bərpa olunan enerji mənbələri haqqında dövlət proqramı həyata keçirilməyə başlanmış və Azərbaycan indi ən müasir texnologiyalar əsasında yeni enerji mənbələrini yaratmaq barədə düşünür.

Azərbaycanın indiki nailiyyətləri danılmazdır və onların gündən-günə artacağına heç kəs şübhə etmir. Çünki Azərbaycan artıq Ulu öndərin başladığı böyük islahatların bir çoxunu uğurla başa vurmuşdur.

Məhz Heydər Əliyevin başladığı və ondan sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə daha sürətlə davam etdirilən islahatlar nəticəsində bu gün Azərbaycan dünya iqtisadiyyatında sabit inkişaf edən bir ölkə kimi öz yerini tutmuş, regionda və MDB məkanında aparıcı dövlətlərdən birinə çevrilmişdir. Azərbaycan həm də öz enerji resursları ilə dünya iqtisadiyyatının inkişafında mühüm yer tutan bir ölkə sayılır. Azərbaycanın böyük potensialı var və bu potensial onun bundan sonra daha sürətlə inkişaf edəcəyinə böyük inam yaradır.

Təsadüfi deyil ki, beynəlxalq maliyyə qurumlarının və təşkilatların reytinq cədvəllərində ölkəmiz gündən-günə irəliləyir və öz mövqelərini möhkəmlədir. Dünyanın bir çox nəşrlərində bu gün Azərbaycanın inkişafı və gələcək perspektivləri diqqət mərkəzində saxlanılır və ölkəmizin gələcəyi haqqında olduqca nikbin fikirlər söylənilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu ilin dekabrında Xırdalan şəhərində müharibə veteranları və əlilləri, şəhid ailələri üçün tikilmiş yaşayış binasının açılışında dediyi sözlər göstərilənləri bir daha təsdiq edir: “Bu gün Azərbaycan Cənubi Qafqaz bölgəsində bütün parametrlər üzrə aparıcı ölkədir, bunu biz də bilirik, bütün beynəlxalq aləm də bilir. Bütün bölgədə iqtisadi tənəzzül yaşandığı bir vaxtda Azərbaycan iqtisadiyyatı inkişafdadır”.

Hazırda özünün rabitə peykini buraxmağa hazırlaşan, kifayət qədər rabitə texnologiyalarına yiyələnmiş və bunlardan istifadə edə biləcək kadrlar yetişdirmiş Azərbaycanın yaxın dövrdə dünyanın yüksək inkişaf etmiş ölkələri səviyyəsinə yüksəlməsi üçün böyük potensialı var.

Ölkə rəhbərliyinin əsas məqsədinin Azərbaycanı müasirləşdirmək, modernləşdirmək olduğu dəfələrlə qeyd edilmişdir. Azərbaycanın bu sahədəki uğurları və səyləri dünyada maraqla qarşılanır.

Ölkə Prezidenti dünyada gedən iqtisadi tənəzzül fonunda Azərbaycanın iqtisadi artımının təkcə neftlə bağlı olmadığını dəfələrlə qeyd etmiş və demişdir: “…bizim uğurlarımızın əsas səbəbi neftin qiyməti deyil, əsas səbəbi aparılan islahatlardır və cəmiyyətdəki çox gözəl əhval-ruhiyyə, ab-havadır”.

Bütövlükdə Azərbaycanın inkişaf modelindən danışarkən bu modelin əsas istiqamətlərinin və konturlarının Heydər Əliyev tərəfindən müəyyən edildiyini qeyd etmək lazımdır. Bu modeli ölkənin zəngin təbii sərvətlərindən səmərəli istifadə etməklə iqtisadi münasibətlərin düzgün qurulması, bütün sahələrin inkişafına təkan verən infrastrukturun yaradılması, ölkədə əlverişli biznes mühitinin, qayda-qanunun və şəffaflığın yaradılması, ən müasir texnologiyaların ölkəyə gətirilməsi və onların geniş tətbiq edilməsi, bir sözlə, müasir dünyanın tələblərinə uyğun sivil dövlətin qurulması və möhkəmləndirilməsi kimi səciyyələndirmək olar.

Azərbaycanda Heydər Əliyevin başladığı işlər 2003-cü ildən sonra da uğurla davam etdirilmişdir. Bunlar hər şeydən əvvəl ölkə Prezidenti İlham Əliyevin qətiyyəti və siyasi iradəsinin bəhrəsidir. Respublika Prezidentinin qeyd etdiyi kimi: “…əgər siyasi iradə varsa və yaxud düşünülmüş siyasət varsa hər bir məsələ öz həllini tapa bilər”.

Azərbaycan Respublikasının Prezidenti 2010-cu ilin fevralında Münxen Təhlükəsizlik Konfransında ölkənin indiki durumu haqqında danışarkən demişdir: “Bugünkü vəziyyət bizi qane edir. Çünki hazırda ölkəmizin bütün əsas maliyyə problemlərinin həllinə nail olmuşuq. Enerji təchizatı sahəsində tam şaxələndirməyə malikik. Biz iqtisadiyyatı şaxələndirə bildik… Azərbaycan iqtisadi və siyasi islahatları davam etdirir. Dünya Bankı 2008-ci ildə Azərbaycanı dünyada birinci islahatçı ölkə elan etmişdir. Liberal iqtisadiyyat, bazar iqtisadiyyatı və siyasi islahatlar birlikdə ölkəmizdə çox yaxşı mühit yaratmışdır. Biz xeyli maliyyə vəsaitlərini toplaya bildik… Bu gün onların həcmi 20 milyard dollardan artıqdır. Bu, 9 milyon əhalisi olan ölkə üçün kifayətdir”.

Dövlətimizin başçısının inam və qətiyyət dolu bu sözləri Azərbaycanın gələcəyinə, Heydər Əliyev ideyalarının bundan sonra da uğurla həyata keçiriləcəyinə daha böyük ümidlər yaradır.

**“Azərbaycan“.-**2010.-9 aprel.-N 74.-S.3.

## HÜQUQİ DÖVLƏTİN BANİSİ

**Əli HÜSEYNOV,**
Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu
komitəsinin sədri

**Azərbaycanın çağdaş tarixini ümummilli lider Heydər Əliyevin fəaliyyətindən kənar təsəvvür etməyin mümkünsüzlüyü ictimai fikirdə birmənalı şəkildə qəbul edilən real həyat həqiqətidir. Bu həqiqət nəinki Azərbaycanın müasir mövcudluğunda, həm də ona aparan yollarda qarşıya çıxan saysız-hesabsız maneələrin aradan qaldırılmasında Heydər Əliyevin nümayiş etdirdiyi uzaqgörənlikdə, iradə və qətiyyətdə, müdriklik və dərin zəkada təzahür edir. Hamı yaxşı bilir ki, Heydər Əliyevə məxsus dahilik keyfiyyətləri olmasaydı, həmin maneələr aradan qalxmaz, həyatımızın indiki gerçəkliyi olmazdı.**

1993-cü il iyunun 15-də Heydər Əliyevin qayıdışı təkcə Heydər Əliyev ömrünün deyil, həm də bütün tariximizin xüsusi mərhələsi, əsaslı dönüş nöqtəsidir. Bu qayıdış Azərbaycan xalqının itirilmiş inamını özünə qaytardı, sabaha, gələcəyə ümidini artırdı. Ümummilli lider “Mən buraya vəzifə üçün gəlməmişəm. Mən böyük yükü ancaq ona görə çiynimə götürmüşəm ki, xalqın həyatının ən çətin dövründə ona xidmət göstərim” deyərək ömrünün qalan hissəsini də xalqının xilasına həsr edəcəyini bildirmişdi. Beləliklə, Azərbaycan dövlətçiliyinin müqəddəratı həll edildiyi 1993-cü ilin iyun günlərində dünya miqyaslı siyasi dövlət xadimi Heydər Əliyevi yenidən hakimiyyətə dəvət edən Azərbaycan parçalanıb dağılmaq və müstəqilliyini itirmək kimi dəhşətli fəlakətdən xilas oldu. Qısa bir müddət ərzində dövlət və hakimiyyət böhranına son qoyuldu, cəbhədə atəşkəs elan edildi və vətəndaş müharibəsinin qarşısı alındı. Bir neçə dövlət çevrilişi cəhdi və terror aktları dəf edildi və nəticə etibarilə ölkədə möhkəm ictimai-siyasi sabitlik yaradıldı.

Məhz Heydər Əliyev Ermənistan və Azərbaycan arasında uzun müddətdən bəri davam edən qanlı müharibəni dayandırmağa, atəşkəs elan etməyə, münasibətləri sülh danışıqları müstəvisinə keçirməyə nail oldu.

Qarabağ probleminin təkcə ölkədaxili məsələ olmadığını, bir dövlətin – Ermənistanın digər dövlətə – Azərbaycana ərazi iddiasından doğan bu silahlı münaqişənin geopolitik, dünyanın müxtəlif aparıcı dövlətlərinin iqtisadi, siyasi və hərbi maraqlarının toqquşduğu və bu maraqlardan asılı bir problem olduğunu məhz ulu öndər Heydər Əliyev ilk dəfə dünyaya bəyan etdi, neçə ildən bəri məruz qaldığımız informasiya blokadasını dağıtdı, Azərbaycan həqiqətlərini dünyaya çatdırdı.

Prezidentlik dövrü ərzində keçirdiyi hər bir görüş və tədbirdən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması prosesini sürətləndirmək üçün istifadə etmişdi. Mövcud problemin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupu çərçivəsində ardıcıl, məqsədyönlü iş aparmışdı. Bununla yanaşı, dünyanın aparıcı ölkələrinin dövlət və hökumət başçıları, mötəbər beynəlxalq təşkilatların rəhbərləri ilə ardıcıl və intensiv danışıqlar aparmış, nəticədə nail olduğu atəşkəs sazişindən məharətlə istifadə edərək dövlətçilik sütunlarının möhkəmləndirilməsi, hərbi quruculuq, vahid komandanlıq altında nizami ordu yaradılması, demokratik, hüquqi, dünyəvi cəmiyyət quruculuğu yolunda geniş islahatlar aparılması sahəsində mühüm tədbirlər həyata keçirmişdir.

Bu dövrdə Heydər Əliyev ölkədə iqtisadi islahatların həyata keçirilməsi sahəsində çox iş görmüşdür. İqtisadiyyatdakı tənəzzül proseslərinin qarşısını alaraq inkişafa nail olmaq üçün mühüm qanunların qəbul edilməsi, inflyasiyanın uğurlu makroiqtisadi sabitləşdirmə siyasəti nəticəsində cilovlanması, Azərbaycanın misilsiz sərvəti olan neft məsələlərinə böyük əhəmiyyət verərək zəngin neft yataqlarımızın işlənilməsində dünyanın ən qabaqcıl şirkətlərinin bilavasitə iştirakına şərait yaradılması, genişmiqyaslı özəlləşdirmə proqramının həyata keçirilməsi, investisiyaların həcminin ən yüksək həddə çatması kimi amillər Heydər Əliyevin bazar iqtisadiyyatının bərqərar olmasına və sabit tərəqqisinə yönəlmiş iqtisadi strategiyasının real bəhrələri idi.

Ulu öndərin dövlətçilik fəaliyyəti miqyas etibarilə çox geniş olduğundan, əslində, bu fəaliyyəti istənilən halda tam əhatə etmək qeyri-mümkündür. Bu baxımdan konkret olaraq “Heydər Əliyev Azərbaycanda insan hüquq və azadlıqlarının ən böyük təminatçısıdır” fikrini əsaslandırmaq məqsədilə tarixi əhəmiyyət kəsb edən bəzi mühüm faktları bir daha sadalamaq və təhlil etmək yerinə düşərdi.

İlk növbədə qeyd edilməlidir ki, ölkədə insan hüquq və azadlıqlarının müdafiəsi ümummilli liderin fəaliyyətinin əsas qayəsini təşkil etmişdir. Demokratiya və insan hüquqlarına sadiq olduğunu daim bəyan edən ümummilli lider Heydər Əliyevin Azərbaycan vətəndaşlarının hüquqlarının bərpa edilməsi sahəsindəki siyasəti gələcək nəsillərin yaddaşına ədalətin bərpası kimi həkk olunacaqdır.

Müstəqillik əldə etdikdən sonra insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə həyata keçirilən hüquqi islahatların ən mühümü məhz yaşamaq hüququnun təmini istiqamətində həyata keçirilən tədbirlər planı

olmuşdur. 1993-cü ildə ulu öndər Heydər Əliyevin ilk qərarlarından biri ölüm cəzasının tətbiqi üzərində moratorium qoyulması oldu.

Demokratik hüquqi dövlət quruculuğu yolunu tutmuş Azərbaycan xalqı milli müstəqillik əldə etdikdən sonra bir çox çətinliklə qarşılaşmışdı. 1992-1993-cü illərdə ölkəmizdə hökm sürən hərc-mərclik, özbaşınalıq, qanunsuz silahlı birləşmələrin mövcudluğu, cinayətkarlığın tüğyan etməsi insanların dinc və təhlükəsiz yaşamasını qəsdə məruz qoymuşdu.

Ümummilli liderin həyata keçirdiyi siyasət sayəsində dövlətçiliyimiz möhkəmləndirildi, ictimai-siyasi sabitlik bərqərar edildi, qanunsuzluqlara, zorakılığa, cəzasızlıq əhvali-ruhiyyəsinə son qoyuldu.

Vətəndaşlarımız təhlükəsiz yaşamaq hüququ qazandılar. Bütün bunlar demokratik cəmiyyətin qurulmasına, insanların hüquq və azadlıqlarının müdafiəsinə təminat verdi.

1995-ci il noyabr ayının 12-də Azərbaycan tarixində ilk dəfə olaraq müstəqil dövlətimizin Konstitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin əsas müddəalarını özündə əks etdirən bu Konstitusiyada insan və vətəndaş hüquqlarının, azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan olundu. Çoxəsrlik dövlətçilik ənənələrimizə, milli və ümumbəşəri dəyərlərə söykənərək yaradılan Konstitusiyamız hüquqi-demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini qoydu.

Qeyd olunduğu kimi, 1993-cü ilin iyun ayından ölkəmizdə ölüm cəzasının icrasına moratorium qoyulmuş, daha sonra ölüm cəzasının tətbiqi məhdudlaşdırılmış və 1998-ci il fevralın 10-da Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm cəzası ləğv edilmişdir. Bu tarixi addım fəlsəfi, hüquqi düşüncələrə, dərin elmi təhlilə, dünya təcrübəsinə və reallığımıza əsaslanmaqla, humanizm, insanpərvərlik, ədalət, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan ulu öndərin gələcək nəsillərə misilsiz töhfəsidir.

Dövlət başçısının 3 fevral 1998-ci il tarixli müraciətində deyilirdi: "Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq, ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm". Ölüm cəzasının ləğvi Azərbaycanın hüquqi-demokratik dövlət quruculuğu yolunda olmasını bir daha sübut edir.

Heydər Əliyevin həyata keçirdiyi dövlət siyasətinin mahiyyətini özündə əks etdirən humanistlik sayəsində 1995-ci ildən əfv və amnistiya təsisatları bərpa edilmiş, həmin vaxtdan indiyədək qəbul olunmuş amnistiya aktları, əfv fərmanları minlərlə şəxsə tətbiq edilmişdir.

Heydər Əliyev hər kəsin hüquqlarına hörmətlə yanaşılmasını, şəxsiyyətin alçaldılması, zorakılıq, işgəncə və bu kimi qeyri-qanuni üsul və vasitələrə yol verilməsi hallarının aradan qaldırılmasını hüquq-mühafizə orqanları qarşısında vacib vəzifə kimi qoymuşdur.

Ölkəmizdə demokratiyanın daha da inkişaf etdirilməsi sahəsində görülən tədbirlərin genişləndirilməsi məqsədilə 1998-ci il fevralın 22-də "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzaladı. İnsan hüquqları sahəsində həyata keçiriləcək tədbirlərin istiqaməti və konsepsiyası həmin sənədlə müəyyən edildi və ümumdövlət səviyyəsinə qaldırıldı. Bunun ardınca təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nda Azərbaycanın konkret inkişaf mərhələsinə uyğun olaraq insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması, elmi-tədqiqat institutunun yaradılması, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, mütəxəssislərin hazırlanması, öhdəliklərə əməl edilməsi və digər vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu fundamental sənədlərin fəlsəfəsi ondan ibarətdir ki, hər bir şəxs Konstitusiyada təsbit edilmiş hüquqlarının həyata keçirilməsi üçün bütün imkanlara malik olsun. Belə ki, Konstitusiyada bəyan edilmiş hüquqların həyata keçirilməsi üçün bir sıra mühüm qanunlar qəbul olunmuş və çevik hüquqi mexanizmlər müəyyənləşdirilmişdir. Deyilənlərə "Kütləvi informasiya vasitələri haqqında", "Dini etiqad azadlığı haqqında", "Ölkədən getmək və ölkəyə gəlmək haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında" və digər qanunları misal göstərmək olar.

Ölkəmizdə insan hüquqlarının qorunması üzrə yeni sistemin yaranmasının parlaq təzahürlərindən biri də "İnsan hüquqları üzrə müvəkkil (ombudsman) haqqında" qanunun qəbul edilməsi oldu. Belə bir hüquqi təsisatın yaradılması qabaqcıl dövlətlərdə tətbiq edilən səmərəli institutların ölkəmizdə fəaliyyət göstərməsinə şərait yaratdı.

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə ölkədə siyasi, iqtisadi, sosial islahatların həyata keçirilməsi, dövlətimizin beynəlxalq birliyə tamhüquqlu üzv kimi qəbul olunması üçün müvafiq hüquqi bazanın yaradılması istiqamətində mühüm addımlar atılmışdır. Belə ki, Milli Məclisin qəbul etdiyi qanunvericilik aktlarının, o cümlədən "Vətəndaşlıq haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Məlumat azadlığı haqqında", "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında", "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq

haqqında", "Polis haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və digər qanunların əsas ruhu insan hüquqlarının müdafiəsi təminatlarının yaradılması olmuşdur.

Bunlar, bir tərəfdən, Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunun təmin edilməsi, çoxpartiyalılığa, müxtəlif siyasi cərəyanların ideyalarının azad ifadə olunmasına əsaslanan siyasi sistemin yaradılması, insan və vətəndaş hüquqlarının qorunmasına qulluq edən təsisatların formalaşması, digər tərəfdən isə, ölkəmizdə azad rəqabətə, inkişaf etmiş mülki dövriyyəyə, müasir bazar münasibətlərinə əsaslanan iqtisadiyyat qurulması məqsədini güdən qanunvericilik tədbirlərini əhatə edir.

Heydər Əliyev respublikamızda mətbuata dövlət qayğısını, kütləvi informasiya vasitələrinin inkişafını, fikir, söz və məlumat azadlığının təmin olunmasını ümumdövlət vəzifəsi hesab edərək 1998-ci il avqustun 6-da imzaladığı fərmanla 1992-1993-cü illərdə sərbəst informasiya fəaliyyətinə qoyulmuş məhdudiyyətləri aradan qaldırdı.

Bu təşəbbüs ölkəmizdə söz, fikir və məlumat azadlığının təmin edilməsinə, hüquqi və etik normaların gözlənilməsinə və qanunlara uyğun mexanizmin yaradılmasına yönəldilmişdi.

Ümummilli liderin gərgin diplomatik səyləri və şəxsi nüfuzu sayəsində müstəqil respublikamız bir sıra nüfuzlu beynəlxalq təşkilatlara, o cümlədən Avropa Şurasına tamhüquqlu üzv qəbul edilmiş və öz beynəlxalq mövqeyini möhkəmləndirmişdir. Heydər Əliyevin xarici siyasəti dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu əsaslar üzərində faydalı əlaqələr qurmağa yönəlmişdi. Bu siyasət indi də möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, qələbələrlə zəngin bəhrələr verir.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin bu dövrünün qısa təhlili göstərir ki, ölkənin həyati mənafelərinə xidmət edən, dövlətin strateji maraqları üzərində qurulmuş, hərtərəfli işlənib hazırlanmış, özünün aydın konkret vəzifə və istiqamətləri, prinsipləri ilə seçilən ardıcıl xarici siyasət xətti yalnız 1993-cü ilin ikinci yarısından etibarən yeridilməyə başlanmışdır. Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyini qorumağa, möhkəmləndirməyə və ölkəmizin dünya birliyinə inteqrasiyası üçün əlverişli beynəlxalq şəraiti təmin etməyə yönəlmiş çoxşaxəli, fəal xarici siyasətinin nəticəsidir ki, indi Azərbaycan dövləti bölgədə və dünyada baş verən əsas iqtisadi, siyasi, mədəni hadisə və proseslərdə layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Ölkədaxili demokratik proseslər və iqtisadi dəyişikliklər də əlavə olunmaqla, uğurlu xarici siyasət bu gün dünyanın ən qüdrətli dövlətlərinin, nüfuzlu təşkilat və qurumlarının diqqətini Azərbaycana yönəltmiş, beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın yaranmasına və inkişafına əlverişli zəmin yaratmışdır.

Bu gün Azərbaycan dövlətçiliyinin ən mühüm problemi ölkənin ərazi bütövlüyünün təmin olunmasıdır. Ermənistan Respublikasının təcavüzü nəticəsində işğal altına düşmüş ərazilərimizin azad edilməsi, viran qoyulmuş kənd və şəhərlərimizin bərpa olunması, sayı bir milyonu keçən və uzun müddətdən bəri məşəqqətli köçkün həyatı sürən soydaşlarımızın doğma yurd-yuvalarına qayıtması Azərbaycan dövlətinin qarşısında çox məsul bir vəzifə, ən vacib məqsəd kimi durur. Müstəqil dövlətçiliyimizin banisi, müasir müstəqil Azərbaycanın memarı, böyük öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən möhtərəm Prezident cənab İlham Əliyev xalqımıza hədsiz məhrumiyyətlər, müstəqil dövlətimizə böyük itkilər gətirmiş təcavüzə son qoyulması üçün çoxşaxəli və səmərəli hüquqi-diplomatik addımlar atır.

Bütün bunların nəticəsidir ki, indi dünya birliyi Azərbaycanın haqlı olduğunu, Ermənistanın işğalçı və təcavüzkar siyasət yeritdiyini daha yaxşı anlayır. Təsadüfi deyil ki, bir çox mötəbər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən qərar və qətnamələrdə Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktı birmənalı şəkildə dəfələrlə təsdiqlənmiş, onun təcavüzkarlıqdan əl çəkməsi tələb olunmuşdur.

1995-2003-cü illər Azərbaycanın demokratik prinsiplərə sadiq bir dövlət kimi inkişafında mühüm bir dövr olmaqla, dünya birliyinə inteqrasiya yolunda ona çox böyük nailiyyətlər qazandırdı. Heydər Əliyevin siyasi müdrikliyi və beynəlxalq nüfuzu olmadan bütün bunları əldə etmək mümkünsüz idi. Həmin illərdə hakimiyyət bölgüsü prinsipinə uyğun dövlət idarəetmə sistemi formalaşmış, icra, qanunvericilik və məhkəmə orqanlarının səmərəli fəaliyyəti təmin edilmişdir. Ölkəmizdə müxtəlif yönlü siyasi partiyaların, ictimai təşkilatların, həmçinin kütləvi informasiya vasitələrinin azad fəaliyyəti üçün yaradılmış şərait dövlətimizdə siyasi plüralizmin, fikir azadlığının, demokratiyanın bərqərar olduğunu bariz şəkildə təsdiqləyir. Ümummilli lider vicdan və azadlıqların təmin edilməsini, tolerantlıq mühitinin yaradılmasını əsl vətəndaş cəmiyyətinin formalaşdırılması üçün mühüm amil sayırdı.

Bu gün insan hüquq və azadlıqlarına, qanunların aliliyinə hörmət prinsiplərinə prioritet istiqamət kimi müstəsna dəyər verən Azərbaycanın dünyəvi və demokratik dövlət imicinin formalaşmasında ümummilli liderin xidmətləri əvəzsizdir. Ulu öndərin rəhbərliyi dövründə dövlət quruculuğunda, insan hüquq və azadlıqlarının təmin edilməsi yolunda mühüm işlər görülməsi ilə yanaşı, digər istiqamətlərdə də möhtəşəm nailiyyətlər

qazanılmışdır. Möhkəm maddi-texniki bazaya və yüksək döyüş qabiliyyətinə malik güclü ordunun formalaşması mahir sərkərdə kimi Heydər Əliyevin dövlətçilik fəaliyyətinin ən parlaq istiqamətlərindəndir.

Ən müxtəlif zümrələri əhatə edən, eyni zamanda siyasi müstəvidə baxışlarına görə həmfikir olan vətəndaşların vahid ideologiya ətrafında və mükəmməl konsepsiya əsasında təsisatlanaraq birgə fəaliyyətinin təmin edilməsi ümummilli liderin siyasi qüdrətini özündə ehtiva edən ən mühüm keyfiyyətlərdən biri sayılır. Elə bu səbəbdən də nəticə etibarilə Heydər Əliyevin dövlət idarəetmə səriştəsini daim yüksək qiymətləndirən Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasının müəyyənləşdirdiyi siyasi xəttin düzgünlüyünə bir daha şahid oldu. Bu siyasətə fəal dəstəyini sonrakı proseslərdə də əsirgəmədi.

Ulu öndərin "Dünənin, bugünün, gələcəyin partiyası" deyə həm keçmişini, həm bugününü, həm də gələcəyini müəyyən etdiyi Yeni Azərbaycan Partiyasının xalq, dövlət qarşısındakı xidmətləri bu təşkilatın cəmiyyətdəki mövqeyini get-gedə daha da möhkəmləndirir, xalqın bu partiyanın ideoloji-siyasi xəttinə dəstəyini gücləndirir.

Heydər Əliyev siyasi xəttinin alternativsizliyinə qəti əmin olan Azərbaycan xalqı 2003 və 2008-ci illərin prezident seçkilərində də məhz bu partiyanın namizədinə – Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı cənab İlham Əliyevə etimad göstərdi. Bununla da müstəqil Azərbaycanın dövlətçilik tarixində yeni yüksəliş mərhələsinin əsası qoyuldu.

Cənab İlham Əliyevin fəaliyyətinin ən mühüm göstəricisi odur ki, o, Heydər Əliyevin əsasını qoyduğu tərəqqini, əldə edilən nailiyyətləri təkcə qoruyub saxlamadı, həm də onların miqyasını genişləndirdi, inkişaf dinamikasını qat-qat artırdı. Böyük çətinliklə qazanılan ictimai sabitlik toxunulmaz qaldı, sosial-iqtisadi yüksəliş, mütərəqqi siyasi dəyişikliklər, hüquqi və demokratik yönümlü islahatlar uğurla davam etdirildi, demokratik prinsiplər və insan hüquqlarının prioritetliyi təmin olundu, xalqın sabaha inamı, dövlətə və rəhbərə etimadı daha da artdı. Ölkədə siyasi münasibətlərin sağlamlaşdırılması istiqamətində atılan konkret addımlar öz bəhrəsini verdi, milli birlik, vətəndaş həmrəyliyi möhkəmləndi, yüzlərlə insan Prezidentin ali mərhəməti nəticəsində əfv olunub cəmiyyətdə yenidən özünü təsdiq etmək imkanı əldə etdi. Milli-mədəni intibah yeni yüksəliş dövrünə qədəm qoydu, azərbaycançılıq ideologiyası ətrafında mənəvi səfərbərlik təmin olundu.

Ulu öndər Heydər Əliyevin misilsiz zəhməti və böyük siyasi məharəti sayəsində baş tutmuş və müasir dünyanın ən möhtəşəm mühəndislik qurğularından sayılan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin istifadəyə verilməsi cənab İlham Əliyevin prezidentlik fəaliyyəti dövründə ən diqqətçəkən hadisələrdən biridir. Bu kəmər ölkəmizin iqtisadi inkişafına xidmət etməklə yanaşı, həm də Azərbaycanın geosiyasi maraqlarının təminatında, milli təhlükəsizliyimizin qorunmasında da mühüm amildir. Son proseslər sübut etdi ki, Azərbaycanın iştirakı olmadan bölgədə hər hansı beynəlxalq enerji, nəqliyyat layihəsinin və ya hansısa digər regional iqtisadi-sosial təşəbbüsün həyata keçirilməsi mümkün deyil.

İqtisadi inkişaf dinamikasına görə Azərbaycan dünya dövlətləri arasında öncül mövqeyə çıxıb. Ümumi daxili məhsulun artımına görə isə dünyada liderliyini qoruyub saxlayır. Digər tərəfdən, regionların, qeyri-neft sektorunun yüksələn xətlə inkişafı, yeni infrastrukturların yaradılması, sosial-iqtisadi proqramların uğurla gerçəkləşdirilməsi, beynəlxalq iqtisadi sistemə inteqrasiya ölkəmizin düzgün inkişaf yolunda olduğundan xəbər verir. Bu gün ümumbəşəri problemə çevrilən qlobal maliyyə böhranından Azərbaycanın faktiki olaraq az zərər çəkməməsi də cənab İlham Əliyevin dövlət başçısı kimi məqsədyönlü fəaliyyətinin məntiqi nəticəsi kimi qəbul edilməlidir.

Bu gün Heydər Əliyev siyasi məktəbinin ən layiqli davamçısı cənab İlham Əliyevin həyata keçirdiyi genişmiqyaslı işlərin siyasi aspektdə tədqiqi aşağıdakı nəticələrə gətirib çıxarır:

- ölkə daxilində düşünülmüş siyasət yürütməklə bütün vətəndaşların, siyasi, ictimai və digər resursların Azərbaycanın müstəqil dövlətçiliyi və ərazi bütövlüyünün qorunması ətrafında səfərbər edilməsi;
- diplomatik və siyasi imkanlardan istifadə etməklə Azərbaycanın müstəqil dövlətçiliyinə qarşı yönəlmiş təhlükələrin aradan qaldırılması, milli təhlükəsizliyin təmin edilməsi, bölgədə və dünyada müttəfiqlərin qazanılması;
- beynəlxalq həyatın bir çox probleminin həllinə münasibət bildirmək və özünün iştirak etdiyi regional münaqişəni dünya siyasəti səviyyəsinə qaldırmaq məqsədilə dünyanın aparıcı dövlətləri ilə, beynəlxalq və regional təşkilatlarla, xarici ölkələrdə Azərbaycanın qlobal maraqlarını müdafiə edə biləcək institutlarla, diaspor mərkəzləri və başqa qurumlarla hərtərəfli işin aparılması və s.

Məhz bu istiqamətlər Prezident kimi fəaliyyətə başladığı ilk günlərdən cənab İlham Əliyevin xarici siyasət kursunun leytmotivini təşkil edir. Bu gün beynəlxalq reallıqları qiymətləndirərkən belə bir amil unudulmamalıdır ki, dövlətlərarası münasibətlər daim dinamikada və planetin ictimai-siyasi həyatının bütün sahələri ilə təmasda olan bir prosesdir. Bu müstəvidə dövlət başçısı özünün xarici siyasətində Heydər Əliyevin Azərbaycanın müstəqilliyi kontekstində işləyib hazırladığı, qlobal əhəmiyyət kəsb edən sülh diplomatiyasına

üstünlük verir və düşünülmüş xarici siyasət strategiyasını həyata keçirmək üçün dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının ali kürsülərindən, böyük səkkizliyə daxil olan, habelə dünyanın digər aparıcı dövlətlərinin diplomatik vasitələrindən səmərəli istifadə edir.

Müstəqil Azərbaycan dövlətçiliyinin yaradılmasının və inkişafının haqlı olaraq Heydər Əliyev epoxası adlandırıla bilən bu dövrü tarixi sərvət və olduqca qiymətli bir irsdir. Xalqımız bu sərvəti, bu irsi qoruyub saxlamalı, inkişaf etdirməli və nəsildən nəslə çatdırmalıdır.

“**Azərbaycan**“.-2010.-10 aprel.-N 76.-S.2.

# GÜCLÜ VƏ MODERN AZƏRBAYCAN ORDUSU HEYDƏR ƏLİYEV SİYASƏTİNİN NƏTİCƏSİDİR

**Aydın MİRZƏZADƏ,**
Milli Məclisinin deputatı,
YAP Siyasi Şurasının üzvü

**Azərbaycanın qonşu Ermənistanla münasibətləri artıq 22 illik tarixi olan Dağlıq Qarabağ probleminin həllindən asılıdır. Hələ keçmiş SSRİ-nin tərkibində olarkən Ermənistan millətçilərinin Azərbaycana qarşı ərazi iddiası İttifaq dağılarkən erməni hərbi birləşmələri tərəfindən torpaqlarımızın işğalına gətirib çıxardı. Ermənilərin bu prosesə əvvəlcədən hazırlaşması Dağlıq Qarabağ müharibəsində Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarının böyük bir hissəsinin işğalına zəmin yaratdı.**

Həmin dövrdə hərbi texnikasız və hazırlıqsız Azərbaycan əsgəri düşmənə qarşı doğma torpağına sevgi və vətənpərvərlik hissi ilə vuruşurdu. Məhz bu səbəbdən SSRİ ordusunun silahları ilə təchiz olunmuş, habelə SSRİ ordusunda yüksək vəzifələrdə xidmət keçmiş erməni generallarının rəhbərliyi altında olan erməni silahlı qüvvələri indiki cəbhə xəttindən daha çox ərazini işğal edə bilmədilər. Ermənilərin torpaq iddiasında əsas məqsədləri ümumilikdə müstəqil Azərbaycan dövlətinin yaranmasına imkan verməmək, "böyük Ermənistan" iddiasını ilk növbədə Azərbaycan torpaqları hesabına reallaşdırmaqdan ibarət idi.

Böyük dövlətçilik təcrübəsinə malik dünya şöhrətli siyasətçi Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanı birinci ağır mərhələdə bir çox fəlakətlərdən xilas edə bildi. 1994-cü ildə əldə olunmuş atəşkəs nəticəsində hər iki tərəf öz dövlətçiliyini möhkəmləndirməyə və problemi özünün düzgün saydığı formada həllinə hazırlaşmağa başladı. Dağlıq Qarabağın və ətraf rayonların Ermənistan silahlı qüvvələri tərəfindən zəbt olunması qonşu dövlətin işğalçılıq siyasətinin nəticəsi idi və bu, beynəlxalq təşkilatların sənədlərində və böyük dövlətlərin münasibətində öz əksini tapdı. Heydər Əliyevin apardığı siyasət bir tərəfdən Dağlıq Qarabağ münaqişəsinin həllinə, digər tərəfdən isə Azərbaycanın bir dövlət kimi iqtisadi və hərbi qüdrətinin artmasına yönəldilmişdi.

Ermənistan isə Dağlıq Qarabağı müstəqil dövlət formasında beynəlxalq hüququn subyekti kimi təqdim etməyə çalışdı. Ancaq ötən dövrlər ərzində bu istəklər baş tutmadı, Ermənistanın bütün planları iflasa uğradı.

Azərbaycan iqtisadiyyatında, kənd təsərrüfatında islahatların aparılması ölkəmizdə effektli iqtisadiyyatın qurulmasına gətirib çıxardı. Sahibkarlar təbəqəsinin formalaşması, iqtisadiyyatın Azərbaycanın təbii resurslarına uyğun olaraq qurulması öz bəhrəsini verməyə başladı. Əgər 1994-cü ildə Azərbaycanın dövlət büdcəsi 370 milyon dollar idisə, 2000-ci ildə artıq bu rəqəm 800 milyon dollara çatdı. Növbəti illərdə bu artım davam etdi və 2010-cu ilin dövlət büdcəsi 15 milyard dollar təşkil edir.

Bunu isə ancaq neft faktoru ilə bağlamaq olmaz. Bu ilk növbədə neft sənayesi ilə yanaşı qeyri-neft sektorunun inkişafına da ciddi əhəmiyyət verilməsi ilə mümkün oldu. Bu gün dünya bazarlarına çıxarılan Azərbaycanın sənaye və kənd təsərrüfatı məhsulları, eləcə də səhiyyə, elm, bank, turizm xidmətləri artıq dünyanın diqqətini cəlb etməyə başlayıb.

Ermənistanın bütün cəhdlərinə baxmayaraq dünya birliyi bir dövlətin başqa dövlətin ərazisinin işğalına və XXI əsrdə silah gücü ilə danışmaq prinsipini qəbul etmədi.

Bu proseslərdə ordu faktorunun rolu çox böyükdür. Ümumilikdə götürəndə, ordu faktoru hər bir dövlətin daxili və xarici siyasətinin güzgüsü sayıla bilər. Dövlətin və cəmiyyətin orduya münasibəti həmin dövlətin öz nüfuzuna, bu gününə və sabahına olan münasibətidir. Ordu faktorunun rolu isə bilavasitə onun döyüş qabiliyyətindən asılıdır.

Dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğu sahəsində də ümummilli liderin, müasir və modern Azərbaycan Ordusunun yaradıcısı Heydər Əliyevin siyasi kursu uğurla davam etdirilir. Elə bunun nəticəsidir ki, milli ordumuz döyüş və mənəvi-psixoloji hazırlıq sahələrində böyük uğurlar əldə edərək gündən-günə daha da güclənir və qüdrətlənir.

Artıq bütün dünya bilir ki, Azərbaycanın Silahlı Qüvvələri 1990-cı ilin əvvəllərindəki siyasiləşmiş silahlı dəstələr deyil, vahid mərkəzdən idarə olunan, maddi-texniki bazası, intellektual potensialı xeyli möhkəmlənmiş, istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir olan bir ordudan ibarətdir.

Orduya dövlətin təhlükəsizliyinin, ərazi bütövlüyünün və müstəqilliyinin qarantı kimi baxan hər bir Azərbaycan vətəndaşı bu gün öz ordusu ilə sözün əsl mənasında fəxr edir. Əldə olunan uğurlar bir daha sübut etdi ki, cəmiyyətdəki siyasi plüralizm daxili qüvvələrin parçalanmasına, siyasi iddiaların həyata keçirilməsinə deyil, vahid dövlət quruculuğuna xidmət edərsə, ordu quruculuğu sahəsində dövlətin apardığı siyasət əsaslandırılmış və ardıcıl olarsa, Silahlı Qüvvələrin təşkilində və gücləndirilməsində yüksək nailiyyətlər əldə

etmək olar. Bütün bunlar ordu quruculuğu prosesində də öz müsbət nəticəsini verməyə başladı. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi bu sahədə də ciddi irəliləyişlərin əldə olunmasını şərtləndirib.

Bizim ordumuzun yaranması və müasir tələblər səviyyəsində formalaşması ağır, mürəkkəb və keşməkeşli yollardan keçmişdir. Erməni təcavüzü, daxili çəkişmələr, yeni yaradılmış özünümüdafiə taborlarının ayrı-ayrı siyasi məqsədlərə xidmət etməsi bir tərəfdən torpaqlarımızın işğalına şərait yaradır, digər tərəfdən ordumuzun yaranmasına mane olurdu. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra respublikamızın həyatının bütün sahələrində olduğu kimi ordu quruculuğu da planlı surətdə həyata keçirilməyə başladı. İlk növbədə qanunsuz hərbi dəstələr buraxıldı, Silahlı Qüvvələr dövlət nəzarətinə alındı. Digər ölkələrin nümunələrindən və Dağlıq Qarabağ müharibəsi təcrübəsindən istifadə olunaraq mükəmməl hərbi qanunvericilik sistemi yaradıldı. Heydər Əliyevin tez-tez ön cəbhəyə getməsi, döyüşən Azərbaycan əsgərləri ilə yanaşı səngərlərdə olması, onların qayğı və ehtiyacları ilə maraqlanması, döyüşdə fərqlənənləri elə yerindəcə mükafatlandırması şəxsi heyətə yeni ruh, yeni qüvvə verirdi. Ulu öndərin titanik fəaliyyəti nəticəsində güclü Azərbaycan ordusu yaradılmağa başlandı. Ordu quruculuğunun elmi-təcrübi əsaslar üzərinə qoyulması, vahid komandanlıq prinsipinin həyata keçirilməsi Qarabağ bölgəsində gedən döyüş əməliyyatlarına öz müsbət təsirini göstərdi.

1993-cü il noyabrın 2-də ulu öndər Heydər Əliyev radio və televiziya ilə xalqa müraciət etdi. Bu müraciət bütünlüklə Azərbaycanın düşdüyü ictimai-siyasi və hərbi böhranın təhlilinə və ondan çıxış yollarına həsr edilmişdi. Bu çıxışdan sonra xalqımızın çoxdan arzuladığı birliyin, həmrəyliyin əsası qoyuldu. Hamı bir nəfər kimi ölkəni dəhşətli təhlükədən çıxarmaq üçün Heydər Əliyevin ətrafında birləşməyə başladı.

Dövlət Müdafiə Şurasının ilk iclasında rüşvətxorluğa, cinayətkarlığa, Vətən qarşısında öz müqəddəs borcunu yerinə yetirməkdən boyun qaçıran şəxslərə qarşı barışmaz mübarizə aparılacağının bəyan edilməsi, çağırış və səfərbərliyin, hərbi komissarların işinin günün tələblərinə uyğun qurulması, fərarilərə, xidmətdən yayınanların hamısına qarşı ciddi sanksiyalar tətbiq olunması istiqamətində atılan qətiyyətli addımlar ordumuzun döyüş hazırlığının yüksəlməsinə səbəb oldu. Ordu quruculuğu sahəsində aparılan işlərin sistemləşdirilməsi, mərkəzləşdirilməsi, ordunun vahid komandanlıq prinsipi əsasında fəaliyyət göstərməsi qısa müddətdən sonra öz səmərəsini verdi. Azərbaycan Ordusu tərəfindən aparılan uğurlu döyüş əməliyyatlarından təşvişə düşən və gücümüzün artmasını hiss edən düşmən 1994-cü il mayın 12-də atəşkəs haqqında müqaviləni imzaladı. Sonrakı dövrlərdə ordumuzun daha da möhkəmləndirilməsi sahəsində bir çox mühüm tədbirlər həyata keçirildi. Bu tədbirlərin həyata keçirilməsi nəticəsində çağırış və səfərbərlik işi xeyli təkmilləşdirilmiş, hərbi hissələrdə intizam möhkəmlənmiş, qanun-qaydalara tam riayət olunması təmin edilmişdir. Bütün bunlar orduya gələn gənclərin peşəkar hərbi qulluqçu kimi hazırlanmasına, hərbi ixtisaslara dərindən yiyələnməsinə şərait yaratmışdır.

Silahlı Qüvvələrin döyüş qabiliyyətinin yüksəldilməsi, peşəkarlığının artırılması fasiləsiz, yəni hər gün davam edən bir prosesdir. Döyüş hazırlığı məsələlərinə ciddi önəm verilməsinin nəticəsidir ki, Azərbaycan Silahlı Qüvvələri hal-hazırda istər quruda, istər havada, istərsə də dənizdə hər hansı döyüş tapşırığını layiqincə yerinə yetirməyə qadirdir. Məlumdur ki, hər bir ordunun qüdrətli – onun döyüş qabiliyyəti ilə mənəvi gücünün vəhdətində reallaşır. Bu gün Azərbaycan cəmiyyətində, eləcə də orduda ümummilli lider Heydər Əliyev tərəfindən hazırlanmış və elmi-nəzəri prinsipləri zamanın sınağından çıxmış mükəmməl hərbi vətənpərvərlik konsepsiyası mövcuddur. İstər sülh, istərsə də müharibə dövründə hərbi qulluqçularda Vətənə, xalqa, dövlətçiliyimizə sədaqət və məhəbbət hisslərinin möhkəmləndirilməsi, onların ümumdövlət mənafeləri ətrafında səfərbər edilməsi bu istiqamətdə aparılan fəaliyyətin əsas məqsədləridir. Hələ o dövrdə Azərbaycan ordusunun müasir NATO standartlarına uyğun olaraq qurulacağı tam aydın idi. Çünki ölkəmiz onların ən üstün olması qənaətində idi. Eyni zamanda ulu öndər Heydər Əliyevin avrointeqrasiya siyasəti NATO ilə sıx əməkdaşlığı vacib edirdi. Bunun üçün Azərbaycanda yetərli potensial da mövcud idi.

Azərbaycanda ali hərbi məktəblər sisteminin yaradılması, onun tədris prosesinin NATO-ya üzv olan ölkələrin hərbi təhsil sisteminin üstünlüklərinə uyğun olaraq qurulması öz nəticəsini verməkdədir. Hazırda Azərbaycan ordusu ciddi, hazırlıqlı, vətənpərvər zabit kadrları ilə təchiz edilir, ordunun maddi – texniki bazası möhkəmləndirilir. Yüksək ixtisaslı milli hərbi kadr hazırlığı istənilən məkan və zaman şəraitində ordu quruculuğu prosesinin obyektiv tələbidir. Hərbçi peşəsinin incəliklərinə yiyələnmiş zəruri sayda peşəkar kadr olmadan ordu quruculuğu kimi çətin bir işi uğurla həyata keçirmək mümkün deyil. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə yaradılan C. Naxçıvanski adına Hərbi Liseyi və Naxçıvan Muxtar Respublikasında yaradılan Heydər Əliyev adına Hərbi Liseyi ötən illər ərzində minlərlə gənc bitirərək ali hərbi məktəblərə daxil olmuş və böyük ordu həyatına vəsiqə almışlar.

Hazırda respublikamızın Silahlı Qüvvələri və qanunvericilikdə nəzərdə tutulmuş digər hərbi birləşmələr üçün müxtəlif kateqoriyadan olan hərbi kadrların hazırlanması Azərbaycan Ali Hərbi Məktəblərində, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində, Hərbi Akademiyasında və digər hərbi təhsil müəssisələrində uğurla həyata keçirilir. 1997-ci ildən bu məktəblərdə NATO standartlarına uyğun tədris proqramı tətbiq olunur. Silahlı Qüvvələrin Hərbi Akademiyasında hərbi qulluqçularla yanaşı dövlət orqanlarında çalışan yüksək vəzifəli şəxslərə müharibə ilə əlaqədar hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin öyrədilməsi təşkil edilir. MDB-yə üzv olan bir neçə dövlət ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən imzalanmış sazişlərə əsasən bu ölkələrin hərbi qulluqçuları Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində təhsil alması bu sahədə qazanılan uğurları bir daha təsdiq edir. Adları çəkilən hərbi təhsil müəssisələrinin maddi-tədris bazası yüksək standartlara cavab verən tədris, idman və mədəni-məişət komplekslərini əhatə edir.

Ötən illər ərzində Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq əlaqələri xeyli genişlənmiş və keyfiyyətcə yeni mərhələyə daxil olmuşdur. 1994-cü il may ayının 4-də Azərbaycan Respublikası NATO-nun “Sülh Naminə Tərəfdaşlıq” proqramına qoşulmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin zabitləri NATO-nun strateji və regional qərargahlarında müxtəlif vəzifələrə təyin edilmişlər. Hər il Azərbaycan Respublikası ilə NATO arasında fərdi əlaqələndirmə proqramı hazırlanır və təsdiq edilir. Proqrama əsasən Azərbaycan Silahlı Qüvvələrinin nümayəndələri NATO-nun hərbi məktəblərində, kolleclərində və başqa strukturlarında keçirilən sülhməramlı kurslarda, Avropa təhlükəsizlik sahəsində əməkdaşlıq, adi silahlara nəzarət, böhran vəziyyətini idarəetmə, ətraf mühitin mühafizəsi, inteqrasiya proseslərinin genişləndirilməsi və digər tədbirlərdə iştirak edirlər. Hərbçilərimiz sülhməramlı, humanitar və digər çoxmillətli təlimlərin planlaşdırılması, hazırlanması və həyata keçirilməsində yaxından iştirak edirlər. Azərbaycan sülhməramlılarının bundan əvvəl Kosovoda, İraqda və hal-hazırda isə Əfqanıstanda NATO-nun, Koalisiya Qüvvələrinin tərkibində öz missiyalarının layiqincə və yüksək peşəkarlıqla yerinə yetirmələri NATO komandanlığı tərəfindən də yüksək qiymətləndirilmişdir.

2004-cü ilin may ayında Fərdi Tərəfdaşlığın Fəaliyyət proqramı NATO Baş katibinə təqdim edilmişdir. Bu proqram 2005-ci ilin may ayında NATO tərəfindən təsdiq edilmiş və onun icrasına başlanmışdır. Son illərdə NATO-nun müxtəlif tədbirlərində Azərbaycan Silahlı Qüvvələrinin yüzlərlə nümayəndəsi iştirak etmişdir.

Azərbaycan Ali Hərbi Məktəbində “NATO – Sülh naminə tərəfdaşlıq” kafedrası, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində isə Sülh Naminə Tərəfdaşlıq Milli Təlim Mərkəzi yaradılmışdır. NATO-nun “Sülh naminə tərəfdaşlıq” proqramı çərçivəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə təcrübə mübadiləsi aparmaq, mühazirələr oxumaq və seminarlar keçirmək məqsədilə Respublikamıza vaxtaşırı NATO-nun müxtəlif komandanlıqlarından, strukturları və idarələrindən hərbi nümayəndə heyətləri gəlir. NATO-nun “Sülh naminə tərəfdaşlıq” proqramı çərçivəsində respublikamızda bir neçə çoxmillətli komanda-qərargah təlimləri keçirilmişdir. “Kooperativ Determineyşn”, “Regional cavab -2009″ kimi təlimlərdə NATO üzvü və tərəfdaş dövlətlərdən nümayəndələr iştirak etmişdir.

Ötən illər ərzində Azərbaycan Respublikası ilə xarici dövlətlər arasında hərbi sahədə əməkdaşlıq haqqında onlarla saziş, protokol və plan imzalanmışdır. Bu gün Azərbaycan Ordusu ən müasir silahlarla silahlanıb. Ordumuzun şəxsi heyəti üçün həmin silahlardan istifadə edilməsi təlimi həm ölkə daxilində, həm də ölkəmizdən kənarda keçirilir. Silahlı Qüvvələr üçün kazarmalar əsaslı təmir edilir, yeniləri tikilir . Zabit və gizir heyətinin mənzil problemi və digər sosial problemləri həll olunur, hərbi qulluqçuların əməkhaqqı məsələsi daim diqqətdə saxlanılır, dövlətin imkanları artdıqca bu məsələnin həlli yolunda çox ciddi tədbirlər görülür.

2008-ci ildə Azərbaycan Ordusunun yaradılmasının 90 illiyi ilə bağlı keçirilən hərbi parad bir sıra dövlətlərin Azərbaycan ordusu haqqında təsəvvürlərinin yaxşı mənada dəyişməsinə səbəb oldu. Eyni təəssürat ötən il Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Silahlı Qüvvələrinin və qanunvericilikdə nəzərdə tutulmuş digər hərbi birləşmələrinin iştirakı ilə keçirilən birgə əməliyyat-taktiki təlimlərindən də yarandı. Silahlı Qüvvələrin komplektləşdirilməsi, hərbi çağırış sisteminin müasir tələblər səviyyəsində təkmilləşdirilməsi üçün görülmüş işlər də öz nəticəsini verməkdədir. Orduda xidmət bu gün hər bir Azərbaycan gənci üçün fəxr nümunəsinə çevrilmişdir. Ordu üzərində ictimai nəzarət sistemi yaradılmışdır və açıq fəaliyyət göstərir. Belə nəticəyə gəlmək olur ki, Azərbaycanda ordu quruculuğu yüksələn xətlə inkişaf edir, ordunun problemləri hər gün, hər an respublika rəhbərliyinin diqqət mərkəzindədir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev dövlət başçısı kürsüsündə fəaliyyətə başladığı ilk günlərdə bəyan etmişdi ki, ordu quruculuğu sahəsində qazanılan nailiyyətlərin bütün parametrlər üzrə daha da inkişaf etdirilməsi onun fəaliyyətində prioritet istiqamətlərdən biri olacaq. Ötən müddət ərzində yuxarıda qeyd etdiyim kimi istər Silahlı Qüvvələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsi, istərsə də hərbi qulluqçuların sosial müdafiəsi sahələrində həyata

keçirilən tədbirlər Ali Baş Komandanın Vətənin müdafiəçilərinin şərəfli xidmətinə necə yüksək qiymət verdiyini bir daha təsdiq etdi.

Hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi, mənzil-məişət şəraitinin yaxşılaşdırılması ölkə və ordu rəhbərliyinin daim diqqət mərkəzindədir. Hərbi hissələrdə, hərbi təhsil müəssisələrində nizamnamədənkənar münasibətlər zəminində baş verən neqativ halları aşkara çıxarmaq, hüquqları pozulmuş hərbi qulluqçuların sosial müdafiəsini daha da gücləndirmək, onların ərizə və şikayətlərinə baxılması işini daha da təkmilləşdirmək məqsədi ilə Müdafiə Nazirliyinin Tərbiyəvi İşlər İdarəsində "Etimad xətti" fəaliyyət göstərir. Hərbi qulluqçular sutka ərzində müvafiq telefonlara zəng vuraraq onları narahat edən məsələlər barədə məlumat vermək, habelə müraciətlərini elektron poçtuna göndərmək imkanı qazanmışlar. Bu praktika qısa vaxt ərzində öz müsbət nəticələrini göstərmişdir.

Bu gün ölkəmizdə həllinə ciddi ehtiyac duyulan problemlərdən biri də mənzil problemidir. Silahlı Qüvvələrdə hərbi qulluqçuların mənzillə təminatını yaxşılaşdırmaq üçün bütün mümkün imkanlardan istifadə olunur.

Son illərdə ölkənin müdafiə xərclərinin bir neçə dəfə artırılması, hərbi qulluqçuların sosial problemlərinin ardıcıl olaraq həll edilməsi yaxın gələcəkdə ordu quruculuğu sahəsində daha böyük uğurlar qazanılacağına təminat verir. Prezident İlham Əliyevin Silahlı Qüvvələrin şəxsi heyətinə diqqət və qayğısı, ordumuza bəslədiyi yüksək inam və etimad bütün hərbçilərin qəlbini qürur və iftixar hissləri ilə doldurmuşdur. Bu gün Azərbaycan ordusunun hər bir əsgəri və zabiti respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrinə sadiq qalaraq respublikamızın ərazi bütövlüyünün bərpasına, torpaqlarımızı işğalçılardan azad etməyə hazırdır.

Ordumuzun möhkəmlənməsi istiqamətində Azərbaycanda Müdafiə Sənayesi Nazirliyinin yaradılması yeni mərhələnin əsasını qoydu. Azərbaycan bu gün nəinki hərbi əşya və arxa təminat təchizatçısıdır, artıq döyüş silahlarını da istehsal edir. Bu silahlar nəinki daxili tələbata yönəldilir, həm də dünya bazarlarına çıxarılır və ciddi rəğbətlə qarşılanır. Silahlı Qüvvələrimizin təminatının gücləndirilməsi, Dövlət büdcəsində hərbi xərclərin artırılması da əhəmiyyətli məqamlardandır. Məlum olduğu kimi Ermənistanın büdcəsi Azərbaycanla müqayisə edilə bilməz. Demək lazımdır ki, bu yanaşma problemin həllinə birbaşa təsir edir.

Azərbaycan dövlətinin qüdrətinin artması ilə paralel Azərbaycan Ordusunun da səviyyəsi yüksəlib. Vaxtilə, Prezident İlham Əliyevin "Azərbaycanın hərbi büdcəsi Ermənistanın ümumi dövlət büdcəsinə bərabər olacaq" bəyanatı işğalçı ölkədə elə də ciddi qəbul edilmirdi. Onlar bunu sadəcə təbliğat hesab edirdilər. Ancaq aparılan işlər ölkə prezidentinin verdiyi bəyanatın həqiqiliyini sübut etdi. Artıq bir neçə ildir ki, Azərbaycanın hərbi büdcəsi 2 milyard dollara bərabərdir. Bu isə təxminən Ermənistanın dövlət büdcəsinə bərabərdir. Qeyd edim ki, bu ölkənin 2010-cu il üçün dövlət büdcəsi 2,2 milyard dollardır. Əgər 1994-cü ildə Ermənistan xaricdəki diaspor təşkilatlarının dəstəyi hesabına hərbi, siyasi sahədə Azərbaycandan bir neçə dəfə üstünlük şəraitində idisə, hazırda Azərbaycan bütün sahələrdə Ermənistanı üstələyir və bu fərq gündən-günə artmaqda davam edir. Azərbaycan ordusu bu gün dövlətin qüdrətinin nümunəsidir, xalqımızın iftixar yeridir və ölkəmizin ərazi bütövlüyünü təmin etmək iqtidarında olan yüksək hazırlıqlı təsisatdır. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin verdiyi qiymətə görə, regionun ən hazırlıqlı və ən müasir ordusu Azərbaycan ordusudur. Bütün bunlar Azərbaycan Silahlı Qüvvələrinin ən müasir tələblərə cavab verdiyini göstərir.

Bu fakt torpaqlarımızın 20 faizini işğal etmiş, bütün siyasətini ancaq və ancaq qonşu dövlətlərin torpaqlarının işğalı üstündə quran Ermənistanda da kifayət qədər məlumdur. Təbii resursları kasad olan, militaristləşdirilmiş siyasət həyata keçirərək Azərbaycana, Türkiyəyə, Gürcüstana torpaq iddiaları irəli sürməsi və beləliklə də özünü inkişafdan kənarda qoyması Ermənistanda iqtisadiyyatın geriləməsinə səbəb olmuşdur.

Ermənistan sivil dövlət, obyektiv qanunlarla işləyən iqtisadiyyat qurmaq, mehriban qonşuluq siyasətinə əsaslanan xarici diplomatiya həyata keçirmək əvəzinə qonşu dövlətlərə torpaq iddiasına üstünlük verir. Bu da işğalçı dövlət üçün bumeranq effekti verir və ziyanı özünə dəyir. Bu gün Ermənistan ordusu faktiki olaraq hərbi polis rejimini xatırladır. Orduda qulluq etmək erməni vətəndaşları üçün şərəf yox, zülmə çevrilib. Xidmətdən yayınmaq halları, dedovşina faktları ildən-ilə artmaqdadır. Orduda hansısa vətənpərvərlikdən, ruh yüksəkliyindən danışmaq olmaz. Ermənistan ordusunun maddi təminatının zəifliyi şəxsi heyətin ruh yüksəkliyinin zəifliyində özünü göstərir. Ordu köhnə silahlarla təchiz olunub, ərzaq təminatı bərbad vəziyyətdədir. Orduya dövlət büdcəsindən ayrılan vəsaitin böyük bir hissəsi müxtəlif mərhələlərdə mənimsənilir. Ən əsası isə qonşu dövlətin torpaqlarını işğalda saxlamaq bu gün erməni əsgərləri, zabitləri üçün maraq kəsb etmir. O özünün yaşayışını düşünür, bundan narahat olur. Ermənistan vətəndaşları müxtəlif üsullarla çağırışdan yayınmağa çalışırlar. Cəbhə xəttinə düşməmək üçün hərbi komissarlıqlara böyük rüşvətlər verilir. Artıq cəbhə və sərhəd xətlərində ciddi əskər çatışmazlıqları hiss edilir. Vəziyyətdən çıxmaq üçün erməni ordu

komandanlığı yerli əhali ilə müqavilə bağlayaraq postlara onları yerləşdirir. Bir sözlə, dövlətin böhran situasiyası erməni ordusuna da ciddi sirayət edib. Bu gün Ermənistan başqa dövlətlərin torpaqlarına iddia edir, başqa dövlətlərin mədəniyyətini, tarixini mənimsəmə siyasəti həyata keçirir, güclü, müasir dövlət qurmaq siyasətini militarist, orta əsr təfəkkürünə malik olan ideologiya ilə əvəz edir. Bu siyasət isə ciddi böhrana, inkişaf imkanlarından məhrum olmağa gətirib çıxarır. Azərbaycan və Ermənistan dövlətlərinin qüdrətinin, Azərbaycan və Ermənistan ordularının təhlili bu müqayisənin bizim xeyrimizə olduğunu göstərir.

Azərbaycan xalqı isə öz qüdrətli dövlətini qurmağa, torpaqlarının bütövlüyünün təmin olunmasına çalışır. Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin bu istiqamətdə apardığı iş müsbət nəticə verməkdədir və ölkəmizə daha da yeni uğurlar qazandıracaq.

“**Azərbaycan**“.-2011.-11 aprel.-N 76.-S.2.

# HEYDƏR ƏLİYEV VƏ XARİCİ SİYASƏTİN AZƏRBAYCAN MODELİ

**Novruz MƏMMƏDOV,**
Azərbaycan RespublikasıPrezidenti Administrasiyasının
xarici əlaqələr şöbəsinin müdiri,
YAP Siyasi Şurasının üzvü

**Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra ölkənin qarşısında duran mühüm vəzifələrdən biri milli mənafelərə əsaslanan xarici siyasət kursunun müəyyən edilərək həyata keçirilməsi idi. Ölkəni düşdüyü ağır vəziyyətdən çıxarmaq üçün səmərəli, praqmatik xarici siyasət kursunun müəyyən edilməsi zərurəti yaranmışdı.**

1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev ilk günlərdən Azərbaycanın xarici siyasətini yeniləşdirdi və ölkənin strateji maraqları əsasında yenidən qurdu. Ulu öndər ilk növbədə keçmiş hakimiyyətin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa, ölkənin strateji maraqlarını region və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Hələ Milli Məclisin Sədri seçilərkən Heydər Əliyev xarici siyasətin başlıca vəzifələrini və istiqamətlərini müəyyənləşdirdi: "Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır". Heydər Əliyev bu sahədə buraxılan səhvlərə diqqəti yönəldərək qeyd edirdi: "Azərbaycanın bütün dövlətlərlə gərək bərabər hüquqlu əlaqəsi olsun, Türkiyə ilə, İran ilə, qonşu Gürcüstan ilə, Rusiya ilə də, Amerika ilə də, Avropa dövlətləri ilə də, Ərəbistan dövlətləri ilə də, müsəlman dövlətləri ilə də, türkdilli dövlətlərlə də, Mərkəzi Asiya dövlətləri ilə, Qazaxıstanla da bərabər hüquqlu əlaqələri olmalıdır". Heydər Əliyev Azərbaycanın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə yolverilməz və milli maraqlara zidd olduğunu vurğuladı. O, özünütəcrid xəttinin acı nəticəsi kimi dünyanın Azərbaycanı tanımamasını, problemlərimizi bilməməsini, haqq səsimizi eşitməməsini göstərir və belə siyasəti "özümüzün özümüzə vurduğumuz zərbə" adlandırırdı. Ölkənin mənafelərini qorumaq istiqamətində hərtərəfli ölçülüb-biçilmiş addımların atılmasının vacibliyini vurğulayan Heydər Əliyev Azərbaycanın dövlətçilik mənafelərini uca tutaraq, müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq çevik manevrlər və xüsusi taktiki gedişlər etdi. Bununla da xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər yarandı. Müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla, nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrinin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başlandı.

İlk növbədə yaxın xariclə münasibətləri qaydaya salmaq, əlaqələri bərpa etmək lazım gəlirdi. Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olması bu yöndə atılmış ilk addımlardan biri idi. Bu quruma daxil olan keçmiş sovet respublikaları ilə ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmləndirilməsi istiqamətində ardıcıl iş aparıldı. Bu ölkələrlə iqtisadi, ticarət və mədəni əməkdaşlıq məsələlərinə xüsusi önəm verildi. Azərbaycanın tarixən bağlı olduğu Rusiya ilə münasibətlərində uğurlu dialoq və anlaşma mühitinin yaranması isə ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsi, bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunması baxımından əhəmiyyətli idi. Azərbaycan müstəqilliyə qovuşduqdan sonra Rusiya ilə əməkdaşlığın inkişafına həmişə böyük əhəmiyyət vermişdir. İki ölkə arasında dostluq əlaqələrinin möhkəmlənməsində ümummilli lider Heydər Əliyevin xüsusi rolu və xidmətləri olmuşdur.

İki ölkə siyasi və iqtisadi əməkdaşlığın dinamik inkişafında maraqlıdır. Bu gün Azərbaycan Cənubi Qafqazda Rusiya ilə bərabərhüquqlu münasibətlər sistemi yaratmağa nail olmuş yeganə dövlətdir. Rusiya ilə qarşılıqlı faydalı münasibətlərin inkişaf etdirilməsi Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi, bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Moskva ilə Bakı arasında çox möhkəm siyasi və iqtisadi əlaqələr mövcuddur. İki ölkə arasında 2008-ci ilin iyulunda Bakıda imzalanmış Dostluq və Strateji Əməkdaşlıq haqqında Bəyannaməyə Cənubi Qafqazda və Xəzər regionunda təhlükəsizliyin təmin olunmasının ayrıca bənd kimi salınması Rusiyanın niyyətlərinin ciddi olduğundan xəbər verir. Bu Bəyannamədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dövlətlərin suverenliyi, ərazi

bütövlüyü və sərhədlərinin toxunulmazlığını ehtiva edən beynəlxalq norma və prinsiplər əsasında tezliklə tənzimlənməsi qeyd olunur.

İkitərəfli əməkdaşlıq sistemində Gürcüstan, Ukrayna və Moldova ilə yaradılan yeni əlaqələr də çox əhəmiyyətli olmuşdur. Bu ölkələrlə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi Azərbaycan Respublikasının xarici siyasətinin yeni mühüm uğuru idi. Ukrayna bizim üçün hər cəhətdən inkişaf etmiş böyük və zəngin ölkə olmaqla iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üçün əlverişli tərəfdaş kimi əhəmiyyətlidirsə, Gürcüstan da yaxın qonşu, Avropaya çıxışımız, orada yarım milyona yaxın soydaşımızın yaşaması, Qafqazın bugünkü dolaşıq düyünlərinin açılması və bu qaynar regionda sülhün və sabitliyin təmin edilməsi baxımından əhəmiyyətlidir. Azərbaycan və Gürcüstan arasında ikitərəfli strateji tərəfdaşlıq və dərinləşən əməkdaşlıq regionda sabitliyin göstəricisinə çevrilmişdir.

Bu illərdə Ermənistanın davam edən təcavüzünün qarşısının alınması və müharibənin dayandırılması xüsusi əhəmiyyət kəsb edirdi. Ən başlıcası isə erməni təcavüzünün mahiyyətini, ermənilərin vəhşiliklərini dünyaya yaymaq, Azərbaycan ətrafında yaradılmış informasiya blokadasını yarmaq, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri dünya birliyinin diqqətinə çatdırmaq kimi vacib işlər öz həllini gözləyirdi.

Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ulu öndər Heydər Əliyevin geniş və çoxşaxəli fəaliyyətinin əsas məzmununu münaqişənin beynəlxalq normalara uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizama salınması təşkil edirdi. Vaxtilə dünya siyasətindən demək olar ki, təcrid olunmuş, informasiya blokadasında sıxılan, haqqı tapdandığı halda erməni təbliğatı sayəsində üstəlik dünya birliyinin də qınağına tuş gələn, ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi Azərbaycana hər cür yardım göstərilməsini qadağan edən “Azadlığı dəstək aktına 907-ci düzəliş” deyilən ədalətsiz sənədlə ayrı-seçkiliyə məruz qalan Azərbaycan yalnız Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın bütün demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatların ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibəti kökündən dəyişdi.

Münaqişənin həlli istiqamətində ən mühüm addımlardan biri atəşkəsin əldə edilməsi oldu. 1993-cü ilin sonları və 1994-cü ilin əvvəllərində ATƏT-in, MDB-nin və digər vasitəçilərin səyləri ilə aparılan danışıqlar nəticəsində 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs əldə edildi. 1993-1995-ci illərdə Azərbaycan Prezidentinin bir sıra xarici ölkələrə səfərləri, keçirdiyi görüşlər, eləcə də dünyanın ayrı-ayrı dövlətlərindən respublikamıza gələn nümayəndələrlə aparılan danışıqlar Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətlərin beynəlxalq aləmə çatdırılması baxımından əhəmiyyətli rol oynadı. Azərbaycana, onun problemlərinə dünya birliyinin münasibətindəki təkamül prosesi özünü ATƏT-in Budapeşt, Lissabon və İstanbul sammitlərində qabarıq şəkildə büruzə verdi. Lissabon sammitində ilk dəfə olaraq ATƏT-in 54 üzvündən 53-ü Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklədi. Bu, Azərbaycanın xarici siyasətinin böyük uğuru olmaqla yanaşı ölkəmizin cəlb olunduğu münaqişənin nizama salınmasında keyfiyyətcə yeni mərhələ idi.

Etiraf etmək lazımdır ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məqsədyönlü və səmərəli siyasət artıq özünün real nəticələrini verməkdədir. Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına yönəlmiş danışıqlar prosesində vaxt Azərbaycanın xeyrinə işləyir. Ölkəmiz ildən-ilə güclənir, beynəlxalq mövqelərini möhkəmləndirir və bütün bunlar münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunacağına olan ümidləri artırır. Təhlillər göstərir ki, BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərini tərk etməsi haqqında müvafiq qətnamələrinin mövcudluğu, Avropa Şurası və ATƏT-in qəbul etdiyi bir sıra qərarlarda Ermənistanın təcavüzkar dövlət olduğunun təsbit edilməsi, Prezident İlham Əliyevin hücumçu diplomatiyasının uğurlu nəticələri, informasiya müharibəsində münaqişə barədə erməni tərəfin dünyada yaydığı dezinformasiyanın getdikcə ifşa olunması, Azərbaycanın iqtisadi-hərbi baxımdan güclənməsi, nəhayət münaqişənin digər vasitələrlə həlli hüququnun ölkəmizdə qalması problemin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığı çərçivəsində həll olunacağına ciddi əsaslar verir.

Dünyanın ən qüdrətli ölkəsi ABŞ-la münasibətlərin qurulmasında və daim yüksələn xətlə inkişaf etdirilməsində Heydər Əliyevin xidmətləri misilsizdir. Müstəqil Azərbaycanla bu ölkə arasında diplomatik münasibətlər 1992-ci ildə yaradılmışdır. Lakin bu, hələ ilk addım idi. Bu yolla irəliləmək, bir sıra məsələlərə aydınlıq gətirmək, əlaqələri genişləndirmək, etimad, etibar qazanmaq, Azərbaycanı layiqincə təmsil etmək üçün çox iş görmək, böyük diplomatik fəallıq göstərmək tələb olunurdu. Bu, olduqca zəruri idi. Çünki dünyəvi dövlət qurmaq istəyən və çətin problemlərlə qarşılaşmış gənc, müstəqil bir ölkənin taleyində dünya siyasətində həlledici rolu olan bu fövqəldövlət mühüm rol oynaya bilərdi. Buna nail olmaq, mövcud imkanları reallığa çevirmək üçün ardıcıl, məqsədyönlü səy göstərmək, müxtəlif yollar axtarmaq, vasitələr tapmaq lazım gəlirdi. Nəhayət 1994-cü ilin sentyabrında “Əsrin müqaviləsi”nin imzalanması bu yolda ən mühüm və ən başlıca amil,

Azərbaycanla Qərb arasındakı münasibətlərdə dönüş nöqtəsi oldu. Belə ki, Azərbaycana, ölkəmizlə iqtisadi əməkdaşlığa, onun problemlərinə, geosiyasi əhəmiyyətinə maraq yarandı. Bu maraq ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, münaqişəli problemin dinc yolla həllinə tərəfdar olduğunu bəyan etməsilə nəticələndi.

Beynəlxalq münasibətlərə əsaslı təsir göstərən 2001-ci ilin 11 sentyabr terror hadisələrindən dərhal sonra Heydər Əliyevin bütün bəşəriyyət üçün təhlükə doğuran beynəlxalq terrorizmi pisləyən bəyanatla çıxış etməsi, Azərbaycanın antiterror koalisiyasında fəal iştirak edəcək dövlətlərdən biri olacağını qətiyyətlə bildirməsi ABŞ-ın respublikamıza olan etimadını daha da gücləndirdi və iki ölkənin münasibətlərində vacib keyfiyyət dəyişikliyinə səbəb oldu. Heydər Əliyevin antiterror koalisiyasına verdiyi dəstək və ümumiyyətlə, Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin gerçəkləşdirilməsi, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının Azərbaycan üzərindən Qərbə nəql edilməsi istiqamətində dövlətimizin başçısının göstərdiyi ardıcıl və qətiyyətli səylər nəticə etibarilə illər boyu xalqımızın haqlı narazılığına səbəb olan "Azadlığı dəstək aktı"na ədalətsiz 907-ci düzəlişin qüvvəsinin dayandırılmasına gətirib çıxardı. 2001-ci ilin oktyabrında ABŞ Prezidenti C. Buş və Dövlət katibi K. Pauell Konqresə müraciət edərək 907-ci düzəlişin aradan qaldırılmasının ABŞ-ın milli maraqlarına xidmət etdiyini vurğuladılar. Erməni lobbisinin ABŞ Konqresinə təsir imkanlarının miqyasını nəzərə alsaq 907-ci düzəlişin qüvvəsinin dayandırılması, heç şübhəsiz Heydər Əliyevin xarici siyasətinin böyük uğuru idi.

Azərbaycanın yeni xarici siyasət kursunda bütövlükdə Avropa dövlətləri ilə münasibətlər məsələsi yeni istiqamət təşkil edirdi. Hər bir ölkənin özünəməxsus xüsusiyyətlərini bütün incəliklərinə qədər nəzərə alan bu yeni kurs çevik taktiki gedişlərlə həyata keçirilirdi. Qısa müddət ərzində Azərbaycanın özünə Böyük Britaniya, Almaniya, Fransa, İtaliya kimi nüfuzlu müttəfiqlər qazanması Heydər Əliyev xarici siyasətinin Avropa istiqamətinin çox mühüm bir uğuru oldu. Ulu öndər Heydər Əliyevin məqsədyönlü xarici siyasəti nəticəsində Avropanın siyasi və iqtisadi həyatında mühüm rol oynayan Belçika Krallığı, Hollandiya, Norveç və digər ölkələrlə qarşılıqlı faydalı əlaqələrin genişləndirilməsi Azərbaycanın Avropa ilə inteqrasiyasına yeni yollar açdı, beynəlxalq aləmdə nüfuzunun artmasına və mövqelərinin möhkəmlənməsinə kömək etdi.

Heydər Əliyevin ölçülüb-biçilmiş yeni xarici siyasət kursunda Azərbaycanla qonşu olan ölkələrlə, müsəlman ölkələri ilə münasibətlərə də xüsusi diqqət yetirilirdi. Bu baxımdan ulu öndər Heydər Əliyevin İrana, Türkiyəyə, Səudiyyə Ərəbistanı və Pakistana səfərləri və apardığı danışıqlar çox əhəmiyyətli oldu. Belə ki, İran və Türkiyə ilə münasibətlərdə xeyli və əhəmiyyətli dəyişikliklər edildi. İranla münasibətlərin yenidən qurulması, gərginliyin aradan qaldırılması, əməkdaşlığın genişləndirilməsi qısa zaman ərzində bu yeni xarici siyasət xəttinin düzgün və faydalı olduğunu göstərdisə, Türkiyə ilə münasibətlərdəki dərin düşünülmüş çox ağıllı dəyişikliklər ölkəmiz üçün, həm də ümumiyyətlə, ümumtürk birliyinin inkişaf edərək möhkəmlənməsi üçün çox əhəmiyyətli oldu. Türkiyə və Azərbaycan regional əməkdaşlıq prosesinin fəal və söz sahibi olan iştirakçılarıdır. Hər iki ölkə özünün iqtisadi-enerji imkanlarından və geosiyasi mövqeyindən ikitərəfli və regional əməkdaşlığın genişlənməsi naminə səmərəli istifadə edir. Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlıq və dərinləşən əməkdaşlıq regionda sabitliyin göstəricisinə çevrilmişdir.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan və Türkiyə də daxil olmaqla bütün türkdilli dövlətlərin ümumi maraq və mənafelər naminə konsolidasiyası istiqamətində inamlı addımlar artmışdır. Ötən ilin oktyabr ayında Bakıda Türkdilli Ölkələrin Parlament Assambleyasının birinci sammitinin keçirilməsi isə ümumtürk birliyinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü strategiyanın uğurlu davamıdır. İlk dəfə 2006-cı ildə türkdilli ölkələrin dövlət başçılarının sammitində Prezident Nursultan Nazarbayev Türkdilli Ölkələrin Parlament Assambleyasının yaradılması ideyasını irəli sürmüşdür. Ortaq mədəni irsə, dinə, dilə malik olan dövlətləri bir araya gətirdiyi üçün Assambleya böyük əhəmiyyətə malikdir. Türkdilli Ölkələrin Parlament Assambleyası parlamentlərarası ünsiyyətin demokratik forumu kimi təşəkkül tapacaq, bölgələrin əmin-amanlıq və inkişaf ərazilərinə çevrilməsi məqsədi ilə müxtəlif təşəbbüslərin irəli sürülməsinə və həyata keçirilməsinə əlverişli şərait yaradacaqdır.

Nəhayət türkdilli ölkələrin dövlət başçılarının 2009-cu ilin oktyabrında keçirilmiş IX zirvə görüşü Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkmənistan arasında münasibətlərin keyfiyyətcə yeni mərhələdə intensiv inkişafı, ümumi səylərin vahid məqsədlər naminə səfərbər olunması baxımından mühüm nəticələrlə yadda qalmışdır. Faydalı müzakirələrlə əlamətdar olan zirvə toplantısında türk dövlətləri arasında hərtərəfli siyasi, iqtisadi və mədəni əlaqələrin yaradılması vacibliyi önə çəkilmişdir. Eyni zamanda türkdilli dövlət başçıları ildə iki dəfə – rəsmi və qeyri-rəsmi görüşmək barədə razılığa gəlmişlər. Rəsmi imzalanmış Naxçıvan Bəyannaməsinə görə isə yaxın perspektivdə Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması nəzərdə tutulur.

Ölkəmiz İranla mütərəqqi və gələcəyə istiqamətlənmiş dialoq aparır və İran dövləti ilə xalqlarımızın mənafeyinə cavab verən mehriban qonşuluq, qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında ikitərəfli siyasi,

iqtisadi, mədəni münasibətlərin inkişafına müvəffəq olmuşdur. Hər iki dövlətin mühüm coğrafi mövqedə yerləşməsi və zəngin iqtisadi potensiala malik olması mövcud əməkdaşlığı daha da genişləndirmiş, Azərbaycanla İran arasında iqtisadi əlaqələrin sürətlə inkişafına, əmtəə dövriyyəsinin ildən-ilə artmasına gətirib çıxarmışdır.

Son illər qlobal və regional məsələlərin həllində Azərbaycan İslam Konfransı Təşkilatı ilə sıx əməkdaşlığını inkişaf etdirərək, onun siyasi rolunun artırılması, beynəlxalq problemlərin həllində təsiri və iştirakının gücləndirilməsi istiqamətində apardığı fəal siyasətini davam etdirmişdir. 2009-cu ildə Bakının İslam mədəniyyətinin paytaxtı elan edilməsi çox əlamətdar və mühüm hadisə olaraq Azərbaycanın İKT ilə apardığı səmərəli və faydalı əməkdaşlığın, bütövlükdə ölkəmizin İslam ümməti arasında qazandığı nüfuzun mühüm göstəricisi idi. Azərbaycan mədəniyyətlər və dinlərarası dialoqun təşviqi, müxtəlif millətlər və dinlər arasında dözümlülüyün, qarşılıqlı anlaşmanın və tolerantlığın inkişafına xidmət edən səmərəli meyarların hazırlanması, beynəlxalq ictimaiyyətdə, ilk növbədə Avropada İslamın, onun mədəniyyət, dəyər və fəlsəfəsinin düzgün dərk edilməsi məqsədi ilə fəal səylər göstərmiş, geniştərkibli bir sıra iri beynəlxalq təşəbbüslər həyata keçirmişdir.

Heydər Əliyevin uğurlu xarici siyasət fəaliyyətinin daha bir məqamı Azərbaycanın nüfuzlu beynəlxalq və regional təşkilatlarla münasibətlərinin yaradılması və daha yüksək səviyyəyə qaldırması ilə diqqəti cəlb etmişdir. Beynəlxalq təşkilatlara üzv olmaq, onlarla səmərəli iş qurmaq Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün böyük əhəmiyyət kəsb edir. Məhz buna görə də Azərbaycan BMT, ATƏT, Avropa Şurası, MDB, GUAM, İKT, QİƏT, İƏT kimi beynəlxalq təşkilatların üzvü olmaqla bərabər, Avropa İttifaqı, NATO, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər təşkilatlarla da fəal əməkdaşlıq edir.

Azərbaycanın ardıcıl şəkildə Avratlantik məkana inteqrasiyası da Heydər Əliyevin xarici siyasətinin əsas istiqamətlərindən idi. 1994-cü ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı yeni müstəqillik qazanmış ölkələrə təklif olunduqdan dərhal sonra Heydər Əliyev Brüsselə səfər edərək ölkəmizin bu proqrama qoşulması haqqında çərçivə sənədini imzalamışdır. Sonralar ulu öndər NATO-nun sammitlərində iştirak etmiş və Azərbaycanın Şimali Atlantika Alyansı ilə tərəfdaşlığının əsas prioritetlərini müəyyən etmişdir.

Ötən illərdə olduğu kimi, indi də Avropa və Avratlantik strukturlara inteqrasiya Azərbaycanın xarici siyasətinin mühüm istiqamətini təşkil edir. Avropa və Avratlantik birliyin dəyərləri ilə bölüşən Azərbaycan, çoxtərəfli Transatlantik təhlükəsizlik əməkdaşlığı proqramlarını uğurla inkişaf etdirərək Avropa qitəsində və onun sərhədlərindən kənarda təhlükəsizlik və sabitliyə töhfə verir. Bu gün NATO ilə regional və enerji təhlükəsizliyi, terrorizmlə mübarizə, kütləvi qırğın silahlarının yayılmaması, narkotiklərin qeyri-qanuni dövriyyəsi və insan alveri, sərhədlərin mühafizəsi, fövqəladə halların fəsadlarının aradan qaldırılması, təhlükəsizlik və digər sahələrdə islahatlar istiqamətində əməkdaşlıq uğurla inkişaf edir.

Heydər Əliyevin xarici siyasət kursunun digər bir mühüm prioriteti Avropa İttifaqı ilə münasibətlərin qurulması və inkişafı idi. Azərbaycan bu nüfuzlu qurumla əməkdaşlığında milli iqtisadiyyatı səmərəli inkişaf etdirməyi, iqtisadiyyatının Avropanın iqtisadi və maliyyə məkanına tam inteqrasiyasını və ümumavropa proseslərində, xüsusən Avropa təhlükəsizliyinin sabit və səmərəli arxitekturasının qurulmasında öz rolunu və əhəmiyyətini daim artırmağı qarşısına məqsəd qoymuşdur. Avropa İttifaqı ilə Azərbaycan arasında 1996-cı ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi siyasi dialoq, demokratik institutların inkişafına dəstək, iqtisadi əməkdaşlıq və sərmayələrin təşviqi kimi mühüm proseslərdə çərçivə bazası rolunu oynamaqdadır. Avropa İttifaqının göstərdiyi yardım Azərbaycanda islahatlar prosesinin sürətləndirilməsinə, müxtəlif layihələrin həyata keçirilməsinə yönəldilmişdir. Bütün bunlar Heydər Əliyevin uğurlu siyasəti sayəsində Azərbaycan iqtisadiyyatının inkişafına xidmət edən amillərdəndir. Bu siyasət bu gün də səylə davam etdirilir. Təsadüfi deyil ki, Azərbaycan dünyanın və dünya siyasətinin mərkəzinə çevrilmiş Avropanın ən mühüm istiqamətlər üzrə tərəfdaşı kimi tanınır. 2004-cü ildə Azərbaycanın Avropa İttifaqı tərəfindən "Yeni qonşuluq siyasəti"nə daxil edilməsi qarşılıqlı iqtisadi inteqrasiyanın və siyasi əməkdaşlığın genişlənməsinə təkan vermişdir. 2006-cı ildə "Yeni qonşuluq siyasəti" çərçivəsində ikitərəfli fəaliyyət planı imzalanmış və əməkdaşlığın əsas istiqamətləri müəyyənləşdirilmişdir. Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış "Enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında" Anlaşma Memorandumu da birgə fəaliyyət üçün yeni imkanlar açır. 2009-cu ilin may ayından Azərbaycan Avropa İttifaqı ilə "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində də əməkdaşlıq etməyə başlamışdır. Bu proqram üzrə Praqa zirvə görüşünün Birgə Bəyannaməsinin imzalanması Azərbaycan ilə Avropa İttifaqı arasında gələcək yaxınlaşma və əməkdaşlığın inkişafına yeni təkan vermişdir. Zirvə görüşü çərçivəsində Transxəzər enerji daşıyıcıları layihələrini dəstəkləyən və dövlətimizin enerji təhlükəsizliyinin təminatına yönələn maraqları əks etdirən "Cənub Dəhlizi-Yeni İpək Yolu" Bəyannaməsinin qəbul edilməsi, eyni zamanda ötən ilin dekabrında Avropa İttifaqının bir sıra ölkələrlə, o cümlədən Azərbaycanla assosiasiya sazişi ilə bağlı danışıqlara başlaması niyyətində olduğunu bəyan etməsi xüsusi diqqətə layiqdir.

Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində 2001-ci ilin yanvarında Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv qəbul edilərək ümumavropa ailəsinə qovuşmuş və burada öz layiqli yerini tutmuşdur. Bununla da ölkəmizdə hüquqi islahatların uğurla aparılması, demokratik, hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi kimi bəşəri dəyərlərə dönmədən əməl olunması özünün layiqli qiymətini almışdır.

Ulu öndər Heydər Əliyevin uğurlu xarici siyasət kursunun mühüm tərkib hissələrindən biri də 2001-ci ilin 11 sentyabr hadisələrindən dərhal sonra Azərbaycanın ABŞ başda olmaqla antiterror koalisiyasına qoşulması və terrorizmə qarşı mübarizədə öz səylərini əsirgəməməsidir. Erməni terrorundan əziyyət çəkən bir ölkə kimi Azərbaycan dövləti bu problemin aradan qaldırılması üçün beynəlxalq qurumlar və ayrı-ayrı ölkələrlə geniş əməkdaşlıq etmişdir. Azərbaycan beynəlxalq terrorizm və kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə ilə bağlı çoxtərəfli və ikitərəfli çərçivədə beynəlxalq əməkdaşlığa fəal cəlb olunmuşdur. Terrorizmə qarşı mübarizəyə dair bütün beynəlxalq sənədlərə qoşulan Azərbaycan bu sahəyə dair daim məlumat mübadiləsi həyata keçirir və müvafiq məruzələr hazırlayır. Azərbaycanın sülhməramlıları Kosovo, İraq və Əfqanıstanda beynəlxalq birliyin digər üzvlərindən olan əsgərlərlə çiyin-çiyinə xidmət göstərmişlər.

Heydər Əliyevin şəxsi təşəbbüsü və nüfuzu, uzaqgörən siyasəti sayəsində tarixi İpək Yolunun bərpası ilə bağlı kommunikasiya layihələrinin həyata keçirilməsində Azərbaycanın həlledici rol oynaması, proqramın icraçı katibliyinin Bakıda yerləşməsi haqqında qərarın qəbul edilməsi də ölkəmizin iqtisadi inkişafına təkan verməklə yanaşı onun beynəlxalq və regional siyasətdə mövqeyinin güclənməsini şərtləndirmişdir.

Azərbaycanın Şərqlə Qərbin, Şimalla Cənubun əsas nəqliyyat yollarının kəsişdiyi məkanda yerləşməsi və regional avtomobil və dəmir yol şəbəkəsinə birləşən, sürətlə inkişaf edən milli nəqliyyat infrastrukturu ölkənin strateji əhəmiyyətini artırır. Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinin əsas hissəsi və 20-dək ölkəni internet, telekommunikasiya sistemləri, elektron informasiya resursları ilə təmin etməyə qadir olacaq Trans-Avrasiya Super İnformasiya Magistralı yaratmaq təşəbbüsü ilə çıxış etmişdir.

Azərbaycan diasporunun təşkilatlanması, dünya azərbaycanlılarının Azərbaycan Respublikası ilə əlaqələrinin hüquqi, siyasi, ictimai və mədəni əsaslarının gücləndirilməsi ulu öndər Heydər Əliyevin xarici siyasət konsepsiyasında mühüm yer tutmuşdur. Xarici ölkələrdə yaşayan soydaşlarımızla çoxşaxəli münasibətlər qurmaq, onları ideoloji-siyasi müstəvidə silahlandırmaq və ümummilli mənafelər naminə səfərbər etmək Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdən birinə çevrilmişdir. Bu sahədə dövlət siyasətinin məqsədi xaricdə yaşayan soydaşlarımızın milli özünəməxsusluğunu qorumaq və inkişaf etdirməkdən, Azərbaycanla əlaqələrini genişləndirməkdən, habelə digər hüquqlarını reallaşdırmaqdan ibarətdir. Ermənistanın həmin tarixi mərhələdə getdikcə genişlənən işğalçılıq siyasətini, erməni lobbisinin beynəlxalq ictimaiyyəti riyakarlıqla çaşdırmaq cəhdlərini ciddiliklə nəzərə alan ulu öndərimiz xarici ölkələrdə Azərbaycan diasporu və lobbisinin formalaşdırılması məsələsini mühüm dövlət siyasəti səviyyəsinə qaldırmışdır.

Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunun davamlılığını təmin edən Prezident İlham Əliyevin yüksək diplomatik məharəti sayəsində Azərbaycan yalnız regionda gedən proseslərə deyil, eyni zamanda beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır. Bu gün dünyanı narahat edən bir sıra məsələlərdə böyük dövlətlərin başçıları Azərbaycanın – onun rəhbərinin mövqeyi ilə hesablaşırlar. Avropa və Asiyanın qovuşuğunda yerləşən mühüm geostrateji məkan kimi Azərbaycan regionda sülhün və sabitliyin təmin olunması üçün dayaq nöqtəsi kimi ən perspektivli tərəfdaş hesab edilir. Ölkəmiz bütün regional məsələlərdə əsas oyunçudur və regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycansız gerçəkləşə bilməz.

Qeyd olunmalıdır ki, qlobal miqyasda dünya siyasəti və diplomatiyasının müəyyən problemləri mövcuddur. Onları hətta "siyasət və diplomatiyanın ümumi böhranı" da (Ramiz Mehdiyev. "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə kursu") adlandırırlar. Bu şəraitdə Azərbaycan dövlətinin xarici siyasəti həm milli maraqları gözləyir, həm də dünya siyasətinin bütün subyektlərinin bərabərhüquqlu iştirakını təmin edən fəaliyyət modelinə üstünlük verir. Azərbaycanın xarici siyasətində çoxvektorluq üstünlük təşkil etdiyindən onun qlobal miqyasda geosiyasi çəkisi durmadan artır. Bu məqamları nəzərə alsaq belə nəticəyə gələ bilərik ki, Azərbaycanın regional və qlobal siyasətin müstəqil mərkəzi olmasında Heydər Əliyev tərəfindən müəyyən edilmiş çoxvektorlu xarici siyasət kursu həlledici rol oynamışdır. Həmin məqam ölkəmizin dinamik inkişafı üçün geniş perspektivlər açır.

"**Azərbaycan**".-2010.-16 aprel.-N 80.-S.5.

## ƏBƏDİYAŞAR İNSAN

**Rafiq MƏMMƏDHƏSƏNOV,**
Milli Məclisin deputatı,
Azərbaycan Tibb Universitetinin elmi işlər üzrə prorektoru,
əməkdar elm xadimi, professor

**"Dahi" sözünün mənası "Azərbaycan dilinin izahlı lüğəti"ndə aşağıdakı kimi verilib: xariqüladə ağıl və zəkaya malik şəxs.**

**"Xariqüladə" məfhumu isə qeyri-adi, misli görünməmiş kimi ifadə edilir.**

**Dahi o insandır ki, bütün yaradıcılığını, fəaliyyətini vətəninin tərəqqisinə, xalqının rifah halının yüksəldilməsinə həsr etmiş olsun və onun irsi, ideyaları davam etdirilərək gələcək nəsil üçün uzunmüddətli proqrama çevrilsin.**

Xalqımızın ümummilli lideri Heydər Əliyev məhz dahi şəxsiyyət idi. Ulu öndər təkcə siyasət aləmində deyil, həyatın bütün sahələrində – quruculuq işlərində, təhsilin, elmin, səhiyyənin, mədəniyyətin, incəsənətin və digər sahələrin inkişafında dahilik qazanmışdır. Müxtəlif peşə adamları Heydər Əlirza oğlunu özünün müəllimi, çalışdığı sahənin mahir bilicisi hesab edirlər. Siyasətçilər onu əvəzolunmaz siyasətçi, tarixçilər tanınmış tarixçi hesab edirlər. Memarlar isə iddia edirlər ki, Heydər Əliyev zövqlü memar, qurucu insan idi. Alimlər isə onun ümumiyyətlə yaradıcı şəxs olduğunda israr edirlər.

Xalqımız ümummilli lideri qəlbində daim yaşadır, onu sonsuz ehtiramla yad edir, respublikamızın hərtərəfli tərəqqisi üçün göstərdiyi xidmətləri unutmur, böyük öndərin ideyalarına sadiq qaldığını bildirir. Ümummilli liderin 87-ci ildönümünün artıq indidən respublikamızın bütün bölgələrində təntənə ilə qeyd edilməsi dediyimizə əyani sübutdur.

Heydər Əliyev ömrünün əsas hissəsini Azərbaycan xalqının tərəqqisinə, onun dünya xalqları arasında şərəfli yer tutmasına, elminin, təhsilinin, səhiyyəsinin, mədəniyyətinin inkişafına həsr etmişdir. Onun 1969-cu ildən 1982-ci ilədək Azərbaycana ilk rəhbərliyi dövründə respublikamızda 200-dən artıq sənaye müəssisəsi işə salınmışdı. Respublikamızda insanların yaşayış səviyyəsi ildən-ilə yüksəlirdi. Hamı Heydər Əliyevin qayğısını görür, diqqətini hiss edirdi. Ulu öndər böyük siyasətçi, böyük azərbaycanlı, yaradıcı, qurucu insan, xalqının şəksiz lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. Onun titanik siyasi fəaliyyəti dünya siyasətçilərinə bir örnək idi. Məhz buna görə də Heydər Əliyev fenomeni həmişə diqqət çəkmişdir.

Təsadüfi deyildir ki, SSRİ-nin rəhbərlərindən biri demişdi ki, Heydər Əliyevin fəaliyyət dairəsi artıq Azərbaycana sığışmır. Onun tükənməz enerjisi İttifaq rəhbərliyinə lazımdır. SSRİ rəhbərliyi bu qərara gəlmişdi ki, Heydər Əliyevin fitri istedadından, tükənməz enerjisindən, zəngin təcrübəsindən, siyasi biliyindən İttifaq üçün istifadə etsin.

Bu məqsədlə Heydər Əliyevi SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edirlər və o, eyni zamanda Mərkəzi Komitənin Siyasi Bürosunun üzvü seçilir. Həmin vəzifədə çalışdığı beş il müddətində o, İttifaqın tərkibinə daxil olan bütün müttəfiq respublikaların, o cümlədən Rusiya Federasiyasının inkişafında xüsusi rol oynamışdır. Heydər Əliyev Moskvada yaşayıb işləyərkən də doğma Azərbaycanın tərəqqisi üçün əlindən gələni əsirgəməmişdir. Bunu yalnız qəlbi doğma vətəni və xalqı üçün döyünən insan edə bilər.

Bu, ulu öndərimizin qəlbinin ifadəsidir, onun öz qanı, canı ilə Azərbaycana bağlı olduğunun təzahürüdür. Heydər Əliyev həyatın bütün sahələrinin inkişafını zəruri sayırdı. Bu dahi, tükənməz enerjili insan ən çətin işlərdən belə çəkinmirdi. Həyatın hansı istiqamətinə rəhbərlik edirdisə, qısa müddətdə o sahənin adı ön sıralarda çəkilirdi. Bu, böyük öndərin təşkilatçılıq qabiliyyətinin, dərin zəkasının sayəsində olurdu.

Bir faktı nəzərə çatdırmaq istəyirəm. Heydər Əliyev keçmiş SSRİ hökumətində çalışarkən ona ən ağır sahəyə – nəqliyyat sisteminə rəhbərlik tapşırılmışdı. Sonralar isə eyni zamanda təhsil, səhiyyə məsələlərinə baxmışdır. Heydər Əliyev, hansı sahədə olursa-olsun, uzaqgörənliyi, düzgün siyasət yeritməsi, önəmli islahatlar aparması ilə seçilir, müvəffəqiyyətlər əldə edir, nüfuz qazanırdı.

Ümummilli liderin rəhbərliyi dövründə iqtisadiyyatımızın bütün sahələrində, o cümlədən də səhiyyə sistemində böyük inkişaf olmuşdur. Bu sahədə aparılan uğurlu islahatlar öz bəhrəsini vermişdir. Ulu öndər ilk növbədə uşaqların sağlam böyümələri qayğısına qalırdı. Buna görə də uşaq poliklinikalarının, xəstəxanalarının tikintisini ön plana çəkirdi.

Heydər Əliyevin ikinci dəfə respublikamıza rəhbərliyinin ilk beş ili ərzində 35-dən çox uşaq xəstəxanası və poliklinikası tikilib istifadəyə verilmişdir.

Ümummilli liderin ilk növbədə uşaq səhiyyəsinin problemləri ilə ciddi maraqlanması təsadüfi deyildi, bu onun uzaqgörənliyinin ifadəsi idi. O, genofondun sağlamlaşmasını, uşaq ölümünə səbəb olan ağır infeksion

xəstəliklərin, epidemiyaların qarşısının alınmasını, kütləvi peyvəndləşməni ön plana çəkirdi ki, xalqımız gələcəkdə bu cür problemlərlə üzləşməsin. Tibb sahəsinin zəifləmiş maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi diqqət yetirən ulu öndər bu məsələni özünəməxsus təmkin və inamla yerinə yetirirdi. Səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi ölkə iqtisadiyyatının vəziyyəti ilə birbaşa bağlı idi. Ona görə də ulu öndər respublikanın milli gəlirinin, xalq təsərrüfatının müxtəlif sahələrində istehsalın həcminin artmasına çox ciddi diqqət yetirirdi. Bu isə sosial vəziyyətin yaxşılaşdırılmasına səbəb olurdu.

Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycana rəhbərliyə gəldiyi 1969-cu ilin avqust ayında keçirilən Azərbaycan Kommunist Partiyasının plenumunda səhiyyənin inkişafına həsr olunmuş məsələnin müzakirəsinə və dekabr ayında səhiyyə haqqında qanunvericiliyin əsasları üzrə qərar qəbul edilməsinə nail oldu. Həmin tədbirlərdə qəbul edilmiş qərarlar Azərbaycanda səhiyyənin gələcək inkişaf perspektivlərini müəyyənləşdirən mühüm sənədlər sırasındadır. Məhz bundan sonra yeni səhiyyə müəssisələrinin tikintisinə, mövcud olan müalicəxanaların əsaslı təmir edilməsinə, onların yeni avadanlıqla təchizinə şərait yarandı.

Səhiyyənin ümdə problemlərini həll etmək üçün qarşıda duran ən mühüm vəzifələrdən biri ölkədə yüksəkixtisaslı tibb kadrlarının hazırlanmasını təmin etməkdən ibarət idi. Bununla əlaqədar ulu öndərin təşəbbüsü ilə Azərbaycan Dövlət Tibb İnstitutunda ciddi islahatlar aparıldı. Burada maddi-texniki baza möhkəmləndirildi, tədrisin keyfiyyəti əsaslı surətdə yaxşılaşdırıldı, aspirantura və klinik ordinatura, eləcə də internatura şöbələri yaradılaraq, onların fəaliyyət dairəsi genişləndirildi, yeni fakültələr, dekanlıqlar təşkil edildi və ucqar rayonlarda kadr çatışmazlığı nəzərə alınaraq qəbulun sayı artırıldı.

Rayonlarda tibb kadrlarına, səhiyyə işçilərinə olan tələbatı ödəmək, kənd yerlərindəki tibb müəssisələrini yüksəkixtisaslı həkimlərlə təmin etmək üçün Azərbaycan Dövlət Tibb İnstitutu nəzdində təşkil edilmiş hazırlıq kursu və bu kursa ucqar rayonlardan olan gənclərin imtiyazlarla qəbul edilməsi problemin həllində mühüm rol oynadı.

Heydər Əliyev dövrünün ilk mərhələlərində tikilib istifadəyə verilmiş Respublika Klinik Urologiya Xəstəxanası (Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və yaxından köməyi ilə bu xəstəxana hazırda yenidən qurulmuş, ona ikinci ömür verilmişdir), neyrocərrahiyyə, diaqnostika, toksikologiya, yanıq və reabilitasiya mərkəzləri ölkə əhalisinin sağlamlığının qorunmasında mühüm rol oynamışdır. Həmin dövrlərdə təməli qoyulmuş elmi-tədqiqat oftalmologiya və elmi-tədqiqat onkologiya institutları (indiki Milli Onkologiya Mərkəzi) hazırda xəstələrə nümunəvi xidmət göstərir.

Keçən əsrin 60-70-ci illərində Azərbaycanda sənayenin və kənd təsərrüfatının müxtəlif sahələrində çalışan insanlar, xüsusilə də neftçıxarma və neft emalı sənayesi işçiləri arasında peşə xəstəlikləri artırdı. Bunun qarşısını almaq üçün geniş tədbirlər planı həyata keçirilirdi. Ulu öndərin göstərişləri və tövsiyələri ilə aparılan profilaktik tədbirlər nəticəsində peşə xəstəliklərinə tutulanların sayı 25 faiz azalmışdı. Görkəmli oftalmoloq, akademik Zərifə Əliyevanın bu sahədə böyük xidmətləri olmuşdur. Yeni müalicə üsulları barədə onun sanballı elmi məqalələri işıq üzü görmüşdür. Akademikin səhiyyə sahəsindəki xidmətləri yüksək qiymətləndirilmiş, o, SSRİ Tibb Elmləri Akademiyasının Averbax mükafatına layiq görülmüşdür.

Ümummilli lider 1998-ci ilin sentyabr ayında Azərbaycan Tibb Universitetinin yeni tədris korpusunun açılış mərasimində çıxış edərkən demişdir: “Mən Azərbaycana rəhbərlik etdiyim zaman, sonra Sovetlər İttifaqının, SSRİ-nin rəhbərliyində olduğum illərdə daim səhiyyə ilə, tibb elmi ilə yaxın olmuşam, ona qayğı göstərmişəm və hesab edirəm ki, çox işlər görmüşəm… Mən o vaxt Sovetlər İttifaqının Moskvada yerləşən ən böyük, ən mötəbər tibb ocaqları, müəssisələri ilə yaxından tanış idim, onların yaranmasında, inkişaf etməsində xidmətlər göstərirdim. Mənim o vaxt həm onkoloji mərkəzin, həm kardioloji mərkəzin, həm ürək cərrahiyyəsi mərkəzinin, həm oftalmoloji mərkəzin, başqalarının yaranmasında, inkişaf etməsində, onların maddi-texniki bazasının yaranmasında çox səylərim olmuşdur. Mən bu gün böyük məmnuniyyətlə xatırlayıram ki, o vaxt SSRİ Tibb Elmləri Akademiyasının 40 illik yubileyində Sovet İttifaqının rəhbərliyi adından iştirak etdim. Mən bir də bunları edərək o vaxt SSRİ dövləti tərkibində Azərbaycanın səhiyyəsinə marağı, qayğını daha da artırırdım. Moskvada yerləşən o böyük tibb elmi mərkəzlərinin diqqətini Azərbaycana cəlb edirdim və Azərbaycana yardım etməyə çalışırdım”.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə hakimiyyətə gəlişi Azərbaycan səhiyyəsi qarşısında yeni perspektivlər açdı. Dağıdılan strukturlar bərpa olundu. Ulu öndərin yaratdığı beynəlxalq əlaqələr nəticəsində kütləvi peyvəndlərin aparılması yenidən qaydaya salındı, baş qaldırmış infeksion xəstəliklərin, epidemiyaların qarşısı alındı.

1994-cü il oktyabr ayının 24-də Heydər Əliyevin imzaladığı fərmana əsasən Səhiyyə Nazirliyində Büdcədənkənar Tibbi Xidmət İdarəsinin yaradılması müstəqil ölkəmizin səhiyyə sistemində özünümaliyyələşdirmənin təməlinin qoyulmasına zəmin yaratdı. Özünümaliyyələşdirmənin təsir dairəsini

genişləndirərək daha da mükəmməlləşdirmək üçün 1996-cı ildə ulu öndər bu haqda sərəncam imzaladı. Beləliklə də problemin həllinin tənzimlənməsinə yeni imkanlar yarandı. 1999-cu ildə isə "Tibbi sığorta haqqında" qanun işıq üzü gördü.

Ulu öndərin tibb elminə, səhiyyə sisteminə göstərdiyi qayğı sayəsində Azərbaycan Tibb Universiteti 1996-cı ildə Amerika və Avropa Təhsil Birliyinin beynəlxalq reyestrinə daxil edildi və bundan sonra ölkəmizin dövlət xətti üzrə yeganə ali tibb təhsili ilə məşğul olan tədris ocağının beynəlxalq əlaqələri daha da genişləndirildi, xarici ölkələrin ali tibb müəssisələri ilə tələbə mübadiləsi aparılması, alimlərimizin xarici əlaqələrinin genişləndirilməsi lazımi səviyyəyə çatdırıldı. Müstəqillik dövründə ulu öndərin uzaqgörənliyi sayəsində tibb təhsili sistemində bir sıra uğurlu islahatlar həyata keçirilmiş, ATU-nun nəzdində ölkəmiz üçün strateji əhəmiyyət kəsb edən hərbi-tibb fakültəsi yaradılmışdır.

Ölkəmizdə tibb elmi, tibb təhsili sistemi, səhiyyə sahəsi hazırda ulu öndərin layiqli davamçısı, onun mətin ardıcılı Azərbaycan Prezidenti İlham Əliyevin böyük qayğısı ilə əhatə olunmuşdur. Son illərdə möhtərəm Prezident İlham Əliyevin təşəbbüsü ilə Qubada, Lənkəranda, Ucarda, Göygöldə, Naxçıvan Muxtar Respublikasında və respublikanın digər ucqar regionlarında beynəlxalq standartlara uyğun olan yeni tibb mərkəzləri, müalicə obyektləri tikilib istifadəyə verilmiş, ən müasir tibb avadanlığı ilə təchiz edilmişdir.

Bu gün Azərbaycan Respublikası sürətli sosial-iqtisadi inkişaf tempinə malikdir. Hazırda Bakı şəhərində və başqa bölgələrdə geniş tikinti-quruculuq işləri aparılır. Tikinti sektorunun bu cür inkişafı yeni iş yerlərinin açılmasına, tikinti materialları sənayesinin inkişafına, əhalinin mənzilə olan tələbatının ödənilməsinə kömək göstərir.

Respublikanın dinamik iqtisadi inkişafı, modernləşdirilmə məsələləri daim diqqət mərkəzində saxlanılır. Bu məsələlərə Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşdirmə xətti" və "İctimai və humanitar elmlər: zaman kontekstində baxış" adlı məqalələrində geniş şərh verilmişdir.

Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyevin elmin inkişafına dair göstərişləri və qəbul etdiyi qərarlar müstəsna əhəmiyyət kəsb edir. Vaxtında qəbul edilmiş qərarlar yeni nəslin, elm adamlarının, xüsusilə də gənc alimlərin sosial vəziyyətinin yaxşılaşmasına öz müsbət təsirini göstərməklə daha fundamental tədqiqatlar aparılmasını stimullaşdırır. 2009-cu il yaddaşlarda Azərbaycan dövlətinin elm, innovasiya və XXI əsrin milli intellektual potensialını səfərbər etmək baxımından tarixi əhəmiyyətli dövlət qərarlarının qəbul etdiyi il kimi qalacaqdır. Ona görə ki, elmin inkişafına və bu sahədə problemlərin kompleks həllinə xidmət etməyə yönəlmiş bir sıra mühüm sənədlər məhz 2009-cu ildə imzalanmışdır. Bunlardan 4 may 2009-cu il tarixli "2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"nı, "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nı, 22 may 2009-cu il tarixli "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nı, 21 oktyabr 2009-cu il tarixli Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılması haqqında sənədi qeyd etmək olar.

Bütün bunlar ona dəlalət edir ki, qlobal böhranın təsirindən minimal itki ilə çıxmağı bacaran Azərbaycanı bundan sonra iqtisadi sahədə dinamik inkişaf mərhələsi gözləyir. Bu inkişafı şərtləndirən digər əsas amillərdən biri isə ölkəmizdə zamanın nəbzinə uyğun sosial-iqtisadi islahatların aparılmasıdır. Prezident İlham Əliyev bununla bağlı demişdir: "Azərbaycanda aparılan sosial-iqtisadi islahatlar ölkəmizi hərtərəfli inkişaf etdirməyə imkan yaradır. Dünya iqtisadiyyatının tərkib hissəsi olan ölkəmizdə 2009-cu ildə çox düzgün və vaxtında atılmış addımlarla iqtisadi maraqlarımızı qoruya bildik, insanların rifah halının pisləşməsinə yol vermədik. Əksinə, 2009-cu ildə Azərbaycan əhalisinin sosial vəziyyəti daha da yaxşılaşdı. Qarşıda duran bütün infrastruktur layihələri, sosial proqramlar icra edildi".

Azərbaycan iqtisadiyyatının dinamik inkişafı nəzərə alınaraq son illər ərzində dövlət rəhbərinin tövsiyəsi ilə səhiyyənin prioritet sahələri üzrə doqquz dövlət proqramı qəbul edilmişdir. Hazırda hemofiliya və talassemiya irsi qan xəstəlikləri üzrə dövlət proqramları, ana və uşaqların sağlamlığının qorunması, xroniki böyrək çatışmazlığı üzrə tədbirlər proqramları, qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair dövlət proqramı icra edilir. Bunun üçün dövlət məqsədli surətdə maliyyə vəsaiti ayırmışdır.

Xəstəliklərin vaxtında aşkar edilməsi və onlara nəzarət sisteminin yaradılması məqsədilə Səhiyyə Nazirliyinin 24 oktyabr 2007-ci il tarixli 100 saylı əmri ilə "Tədbirlər proqramlarına daxil edilmiş xəstəliklərin ilkin aşkarlanma hallarının qeydiyyatı vərəqi" vahid formada təsdiq edilmişdir.

Ölkəmizdə endikrinoloji xəstəliklərdən, xüsusilə şəkərli diabetdən əziyyət çəkənlərə yardım etmək məqsədilə, həmçinin Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) şəkərli diabet xəstələrinin sayının artacağı haqqında proqnozunu nəzərə alaraq, 2003-cü ilin dekabrında "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" qanun qəbul edilmiş və respublika Prezidenti cənab İlham Əliyevin 2004-cü il 14 fevral

tarixli fərmanı ilə təsdiq edilmişdir. Həmin fərman əsasında hazırlanmış dövlət proqramının yerinə yetirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Aparılan tədbirlər nəticəsində şəkərli diabet xəstələrinin aşkar edilməsi işi yaxşılaşmış, onların qeydiyyata götürülməsi məsələsi qaydaya salınmışdır.

Hazırda dövlət proqramı çərçivəsində xəstələr şəkərsalıcı dərman preparatları ilə təmin olunurlar. Onlara özünənəzarət vasitəsi olan qlükometr və test çubuqları pulsuz paylanılır. Eyni zamanda, şəkərli diabet xəstələrinin müayinə və müalicəsində müstəsna əhəmiyyəti olan qlikozilləşmiş hemoqlobinin təyin edilməsi məqsədilə endokrinoloji yardım göstərən tibb müəssisələri ekspress analizator və test striplərlə təmin edilmişdir.

Əhaliyə göstərilən hematoloji yardım və qan xidmətinin inkişafına dövlət səviyyəsində yüksək diqqət yetirilmişdir. Bu sahədə bir sıra qanunverici və normativ sənədlər qəbul edilmişdir.

Bədxassəli şişlərdən yüksək xəstələnmə, ölüm göstəriciləri və bununla əlaqədar baş verən böyük sosial-iqtisadi itkilər bu xəstəliklə mübarizə işinə prioritet dövlət istiqamətlərindən biri kimi yanaşmağa əsas verir. Bu baxımdan 23 may 2006-cı il tarixdə Milli Məclisin onkoloji xəstələrə ixtisaslaşdırılmış tibbi və sosial yardımın göstərilməsinin hüquqi əsaslarını müəyyən edən "Onkoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul etməsi təsadüfi deyildir. Bu məsələ ilə əlaqədar ölkə Prezidentinin 2006-cı il 2 avqust tarixli fərmanının icrasını təmin etmək məqsədilə Nazirlər Kabineti tərəfindən onkoloji xidmətin fəaliyyətini tənzimləyən 5 normativ akt təsdiq edilmişdir. Proqram qəbul edildikdən sonra onkoloji xidmətə ayrılan vəsait 3 dəfə artırılmış, bu sahədə fəaliyyət müəssisələrinin maddi-texniki bazası yaxşılaşdırılmışdır.

Bütün bunlar möhtərəm Prezident İlham Əliyevin ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və perspektivlərini müəyyənləşdirdiyi həyati məsələlərin həlli istiqamətində məqsədyönlü siyasət aparmasının, islahatlar keçirməsinin əyani sübutudur. Bu bir də onu göstərir ki, ulu öndərin layiqli davamçısı, ölkə başçısı cənab İlham Əliyev başqa sahələr kimi, səhiyyə məsələlərini, insanların sağlamlığını, gələcək nəslin gümrah böyüməsini daim diqqət mərkəzində saxlayır. Dövlət səviyyəsində görülən işlər, həyata keçirilən tədbirlər dediklərimizə əyani sübutdur.

2006-cı il iyunun 1-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Milli Onkologiya Mərkəzinin yeni korpuslarının tikintisinin təməli qoyulmuşdur. Mərkəz artıq ən müasir tibbi avadanlıqla təchiz edilmiş yeni binada fəaliyyət göstərir. Burada quraşdırılmış rəqəmsal rentgen cihazları, kompüter tomoqraf və nüvə-maqnit rezonans qurğuları, xəttigücləndirici, mammoqraf xəstəliklərin diaqnozunu dəqiq müəyyənləşdirməyə imkan yaratmışdır. Mərkəz mobil diaqnostik komplekslə də təmin edilmişdir ki, bu səyyar qurğu bölgələrdə onkoloji xəstələrin aşkar edilməsi üçün geniş imkanlar yaradıb. 2007-ci ildə isə Azərbaycan Tibb Universitetinin ən müasir tibb avadanlığı ilə təchiz edilmiş onkoloji klinikası istifadəyə verilmişdir.

Yeni kadrların hazırlanması, tədris müəssisələrində əlverişli, nümunəvi şərait yaradılması da ölkə rəhbəri İlham Əliyevin daim diqqət mərkəzində olmuşdur. Bunu Tibb Universitetinin timsalında da aydın görmək olar.

2007-ci ilin sentyabrında ATU-nun çoxprofilli tədris-terapevtik klinikasının tikintisinə başlanması haqqında Azərbaycan Prezidenti sərəncam imzalamış, elə həmin ayda da binanın təməlqoyma tədbiri keçirilmişdir. Hazırda klinikanın tikintisi başa çatdırılmışdır və istifadəyə, demək olar ki, hazırdır. Həmin tədbirdə ölkə Prezidenti cənab İlham Əliyevlə birlikdə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva da iştirak etmişdir. Yeri gəlmişkən, onlarca səhiyyə obyekti və təhsil müəssisəsinin tikilib istifadəyə verilməsində, mövcud olanların müasir tələblər səviyyəsində yenidənqurulmasında, onların müasir avadanlıqla təchizində Mehriban xanım Əliyeva misilsiz xidmətlər göstərir.

Cənab İlham Əliyevin 2008-ci il mart ayının 13-də imzaladığı sərəncama əsasən ATU-nun daha bir klinikasının – cərrahiyyə klinikasının tikintisinin başlanılmasına start verilmişdir. Səhiyyə və tibb elminin öndə gedən sahəsi sayılan cərrahiyyənin Azərbaycanda böyük tarixi, zəngin keçmişi və ənənələri var. Təcili və təxirəsalınmaz cərrahi xidmətin optimal təşkili və işinin yaxşılaşdırılması səhiyyə qarşısında duran ən mürəkkəb problemlərdəndir. Bu səbəbdən də cərrahi yardım göstərən tibb müəssisələrinin imkanlarının artırılmasına xüsusi diqqət yetirilir. Bakı Şəhər Kliniki Tibb Mərkəzinin, Sumqayıt şəhər təcili yardım xəstəxanalarının rekonstruksiya və əsaslı təmirindən sonra ən müasir tibbi avadanlıqlarla təchizatı və əhalinin ixtiyarına verilməsi də bu kompleks tədbirlər sisteminə aiddir.

Başqa bir mühüm sənəd barədə. Bu, əhaliyə göstərilən təcili və təxirəsalınmaz tibbi yardımın keyfiyyətinin və səmərəliyinin artırılması məqsədilə Azərbaycan Prezidentinin imzaladığı 20 fevral 2007-ci il tarixli sərəncamdır. Həmin sərəncamla bu xidmətə əlavə olaraq Prezident fondundan 12 milyon manat vəsait ayrılmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin 30 dekabr 2007-ci il tarixli sərəncamına əsasən isə, təcili və təxirəsalınmaz tibbi yardım xidmətində çalışan işçilərin vəzifə maaşları 2 dəfə artırılmışdır.

Bütün müvəffəqiyyətlər qəlbi həmişə Azərbaycanla bir döyünən, onun adını dünya tarixinə birdəfəlik yazan, hər işi xalqı üçün edən fenomen siyasətçi, ulu öndər Heydər Əliyevin düzgün siyasətinin, əsasını qoyduğu işlərin davam etdirilərək həyata keçirilməsinin nəticəsidir. Son illər Azərbaycanda qazanılan böyük nailiyyətlər məhz ulu öndərin siyasi xəttinin layiqli davamçısı möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə edilmişdir.

Bəli, ümummilli lider siyasi varis yetirməkdə də yanılmamışdır. Ulu öndərin prinsiplərinə sadiq qalan möhtərəm Prezident İlham Əliyevin də amalı Azərbaycanı sürətlə inkişaf etdirmək, xalqımızın rifah halını yüksəltmək, gələcək nəslin sağlam böyüməsini təmin etmək, torpaqlarımızı düşmən tapdağından azad etməkdir.

“**Azərbaycan**“.-2010.-20 aprel.- N 83.-S.6.

# HEYDƏR ƏLİYEVİN İDARƏÇİLİK İRSİ DÖVLƏTİN KADR HAZIRLIĞININ ƏSAS QAYƏSİNİ TƏŞKİL EDİR

**Seyfəddin QƏNDİLOV,**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, professor, əməkdar elm xadimi,
Dövlət qulluğunu idarəetmə şurasının üzvü

**Ümummilli lider Heydər Əliyevin dövlətçilik ideyalarının elmi-nəzəri əsasları təkcə bugün üçün deyil, gələcək üçün də çox əhəmiyyətlidir. İllər keçdikcə biz bunu daha aydın görür və dərk edirik. Heydər Əliyevin idarəçilik məharəti çox zəngin təcrübə məktəbi tükənməz bir xəzinədir. İllər keçdikcə gələcəkdə hələ çox-çox nəsillər bu təcrübədən bəhrələnəcəklər. Ulu öndər Heydər Əliyev özünün çox böyük təşkilatçılıq məharəti və çoxcəhətli səmərəli fəaliyyəti ilə idarəçilik elmini təkcə əməli cəhətdən deyil, həmçinin nəzəri baxımdan da zənginləşdirmişdir. Bütün bunlar dünya təcrübəsi üçün də faydalı olduğundan beynəlxalq əhəmiyyətə malik çox zəngin bir sərvətdir. Biz bununla fəxr etməklə yanaşı qoruyub saxlamalı və daim bu sərvətdən bəhrələnməliyik.**

Bu gün Azərbaycanda demokratik ölkələrin zəngin təcrübəsinə əsaslanan dövlət idarəçilik sistemi yaradılıb formalaşdırılmışdır. Fərəhli haldır ki, dövlət idarəçilik sistemimiz üçün xeyli qabiliyyətli və həm də milli ruhlu kadrlarımız hazırlanmışdır. Odur ki, cəmiyyət həyatının demək olar ki, bütün sahələrində yüksək səviyyəli kadr potensialımız mövcuddur. Buna biz ulu öndər Heydər Əliyevin parlaq və aydın zəkası, zəngin bilik və təcrübəsi, çoxcəhətli fəaliyyəti və zəhməti hesabına nail olmuşuq. Ümummilli lider Heydər Əliyevin bizə irs qoyduğu bu zəngin təcrübəyə əsaslanaraq, eləcə də beynəlxalq təcrübəyə istinad edərək idarəçilik mədəniyyətimizi daim artırmalı, onu zənginləşdirərək yüksəltməli, yeniləşən dünyamızın tələblərinə cavab verən kadr potensialımızı çoxaltmalıyıq. Unutmamalıyıq ki, ölkəmizin bugünü və gələcəyi bu kadrların peşəkarlıq səviyyəsindən çox asılıdır. Heydər Əliyevin dövlət idarəçilik ideyaları, onun zəngin idarəçilik məktəbi bizə bunu tövsiyə edir, bunları öyrədir.

Təbiidir ki, hər bir ölkənin, eləcə də Azərbaycanın təhsil sistemi üçün idarəetmə kadrların hazırlığı məsələsi xüsusi aktuallıq kəsb edir. Belə ki, Azərbaycanda demokratik hüquqi dövlət quruculuğu prosesləri sürətləndikcə, dövlət müstəqilliyimiz möhkəmləndikcə, iqtisadiyyatımızın inkişaf sürəti artdıqca ölkədə idarəetmə sisteminin daha da təkmilləşdirilməsi, onun səmərəliliyin artırılması məsələləri ön plana çıxır. Dövlət idarəçiliyinin səmərəliliyi isə ixtisaslı kadrların hazırlanması və qulluğa cəlb olunması ilə təmin olunur. Belə ki, dövlət orqanlarının keyfiyyətli və səmərəli fəaliyyəti əhəmiyyətli dərəcədə dövlət qulluqçularının səriştəsindən, bacarığından, ixtisas səviyyəsindən asılıdır.

Qabaqcıl idarəetmə sistemlərinin, texnologiyalarının yaradıldığı müasir şəraitdə idarəetmə sistemində çalışan rəhbər kadrların bir qismi artıq ətrafda baş verən dəyişikliklərə bəzən tam uyğunlaşa bilmir, mürəkkəb idarəetmə məsələlərinin həllində peşəkarlıqla bağlı müəyyən çətinliklərlə üzləşir, idarəetmənin səmərəliliyini təmin edə bilmirlər. Dövlətin mənafeyi isə yalnız ali rəhbərlərin deyil, həm də bütün dövlət idarəetmə sistemindəki vəzifəli şəxslərin yüksək təhsil və peşəkarlıq səviyyəsinə malik olmasını tələb edir. Odur ki, dövlət qulluğu üçün mütəxəssislərin hazırlanması dövlətin yüksək peşəkarlığa malik idarəetmə kadrları korpusunun formalaşmasına yönəlmiş kadr siyasətinin mühüm tərkib hissəsinə çevrilir və dövlət qulluğu üçün kadr hazırlığı sisteminin, bütövlükdə ölkənin təhsil sisteminin qarşısında idarəetmə sahəsində yüksək ixtisaslı və peşəkar kadrların yetişdirilməsini aktual problem kimi qoyur. Onların hazırlanması isə təbii ki, xüsusi dövlət qayğısı göstərilməsini tələb edir.

Bu kadrların peşəkarlığının, səriştəliliyinin yüksək olmasından ölkənin nəinki bugünü, həmçinin gələcəyi də çox asılıdır. İdarəçilik işinin səmərəliliyini yüksəltməyə nail olmaq məqsədi ilə bu gün ölkəmizdə aparılan iş qarşımızda təkcə kadr hazırlanması kimi yox, həm də siyasi bir vəzifə kimi durur. Bu baxımdan təbiidir ki, indi idarəetmə kadrlarının nəzəri və praktiki hazırlığı məsələlərinə olan tələb də artır. İndi hazırlanan kadrlar gərək dəyişilən vəziyyətdən baş çıxarmağı, konkret şəraitə uyğun vəzifələri müəyyən etməyi, müstəqil qərarlar qəbul edərək onları həyata keçirməyi bacarsınlar. Odur ki, bu vəzifələrə uyğun kadrlar hazırlanması, onların səriştəliliyi, peşəkarlığının artırılması işi də daim təkmilləşməli, kadrların elmi nəzəri səviyyəsi yüksəldilməli və praktiki iş təcrübələri artırılmalıdır. Bunun üçün tədris prosesinin təşkili, onun forma və metodları da təkmilləşdirilməli, inkişaf etdirilməli, informasiya təminatı lazımi səviyyədə olmalıdır. Bu mənada yerləşdiyi regionda lider dövlətə çevrilmiş Azərbaycanın mövqelərini qoruyub saxlayan, daha da inkişaf etdirə biləcək peşəkar kadrların yetişdirilməsi üçün təhsil sistemi idarəetmə kadrlarının hazırlığı sahəsində dünyadakı

qlobal meyilləri diqqətlə izləməli və tədrisin optimal modellərinin axtarışını daim davam etdirməli, bu sahədə dünyadakı ən yaxşı nümunələrə uyğunlaşmalı və öz işini ona uyğun qurmalıdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, sürətli dəyişikliklərin baş verdiyi hazırkı vaxtda cəmiyyətin sosial-iqtisadi tərəqqisində, rəqabətə davamlı insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan bilik iqtisadiyyatının qurulmasında ali təhsilin müstəsna rolu var. Qloballaşmanın geniş vüsət aldığı müasir dövrdə hər bir ölkənin iqtisadiyyatının dinamik inkişafı, onun uğurlu gələcəyi, inkişaf etmiş ölkələr sırasına daxil olması həmin ölkədə təhsilin səviyyəsi ilə müəyyən olunur. Bu cəhətdən ölkənin malik olduğu təbii sərvətlərin cəmiyyətin hərəkətverici qüvvəsi olan insan kapitalına çevrilməsi ali təhsil qarşısında duran müstəsna əhəmiyyətə malik əsas vəzifədir. Bütün bu amillər respublikada ali təhsil sahəsində islahatların istiqamətlərinin dünyada ali təhsilin inkişaf tendensiyalarına uyğun müəyyənləşdirilməsi zərurətini qarşıya qoyur.

Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin Azərbaycanda elm və təhsilin inkişaf problemləri və perspektivləri ilə bağlı proqram xarakterli “İctimai və humanitar elmlər: zaman kontekstində baxış” məqaləsində qeyd edilir ki, “Tədris prosesinə dövlətçilik maraqları və yeni vəzifələr, yeni tələblər nöqteyi nəzərindən yanaşılmalıdır. Qloballaşma, informasiya texnologiyaları və internetin hökmranlığı əsrində təhsil prosesini köhnəlmiş metodlarla qurmaq olmaz… Xalqın və dövlətin gələcəyinin əsası məktəbdə və universitetdə qoyulur. Yalnız bundan sonra gənclər istehsal və idarəçilik proseslərinə qoşulurlar. Ona görə də onlar yüksək səviyyədə təhsil almalıdırlar. Dövlətimizin nəzərdə tutduğu ali məqsədlərə çatmaqda problemlərlə qarşılaşmaq istəmiriksə hazırlıqlı gənc mütəxəssislərimiz olmalıdır”.

Bu istiqamətdə Azərbaycanda son dövrlərdə çox mühüm addımlar atılmış, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 may tarixli 295 nömrəli sərəncamı ilə “2009-2013-cü illərdə Azərbaycan Respublikası Ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı” qəbul olunmuşdur. Avropa və dünyanın təhsil məkanına inteqrasiya məqsədi ilə Boloniya prosesinə qoşulmuş Azərbaycanda Nazirlər Kabinetinin 12 yanvar 2009-cu il tarixli qərarı ilə beynəlxalq təcrübə nəzərə alınmaqla işlənib hazırlanmış “Ali təhsilin bakalavr pilləsi ixtisaslarının (proqramlarının) siyahısı” təsdiq edilmiş, Təhsil Nazirliyi tərəfindən müxtəlif ixtisaslar, o cümlədən idarəetmə ixtisasları üzrə təhsilin yeni dövlət standartları qəbul olunmuşdur.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən kadr siyasəti dövlətçiliyimizin bütün sahələrində yeni düşüncəli, savadlı, işgüzar, bacarıqlı, saf mənəviyyatlı, yüksək təşkilatçılıq və informasiyadan istifadə etmək qabiliyyətinə malik olan kadrların hazırlanmasına, onların cəsarətlə seçilib irəli çəkilməsinə böyük zəmin yaradır. Xalqın və dövlətin gələcəyinin məhz yüksək ixtisaslı, peşəkar və vətənpərvər insanlarda görən Heydər Əliyev hələ ötən əsrin 70-80-ci illərində ölkənin maddi imkanlarının məhdudluğuna baxmayaraq bu işi dünya miqyasına çıxarmış, yüzlərlə gənci təhsil almaq üçün xarici ölkələrə göndərmişdir. Bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul olunmuş fərmanla təsdiq olunan Dövlət Proqramına əsasən hər il yüzlərlə gənc inkişaf etmiş xarici dövlətlərin qabaqcıl ali təhsil müəssisələrində ixtisaslı kadr kimi (o cümlədən idarəetmə ixtisasları üzrə) yetişirlər. Azərbaycanın özündə idarəetmə sahəsində milli kadrların hazırlanması üçün müstəqillik illərində bir neçə yeni elm və təhsil ocaqları yaradılmış, mövcud ali məktəblərdə yeni dövrün tələb etdiyi mütəxəssislərin hazırlanması işi təşkil edilmişdir. Burada ümummilli lider Heydər Əliyevin 3 yanvar 1999-cu il fərmanı ilə yaradılan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını xüsusi qeyd etmək lazımdır. Fərmanda Dövlət İdarəçilik Akademiyasının yaradılmasının məqsədi “Dövlət İdarəçilik sahəsi üçün mütəxəssislər hazırlanması işinin müasir tələblərə uyğun qurulması, onların peşəkarlıq səviyyəsinin artırılması, dövlət idarəçiliyi sahəsində elmi-tədqiqatların təşkili və həmin sahənin analitik-informasiya təminatının möhkəmləndirilməsi” kimi müəyyən edilmişdir. Akademiyanın yaradılması dövlətimizin möhkəmləndirilməsi və elmi əsaslarla idarə olunması, yeni idarəetmə mədəniyyətinin formalaşması və inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir. Dövlət qulluğu üçün kadrların hazırlanması, yenidən hazırlanması və ixtisasının artırılması məsələləri üzrə əsas elmi-metodiki və tədris mərkəzi olan Dövlət İdarəçilik Akademiyasının üzərinə Azərbaycanın böyük siyasi və iqtisadi potensialını reallaşdıra biləcək dövlət qulluqçularının yeni nəslinin yetişdirilməsi kimi çox məsul vəzifə qoyulmuşdur. Akademiya yarandığı gündən qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün öz fəaliyyətini aşağıdakı istiqamətdə qurmağa çalışmışdır:

- xarici ölkələrin dövlət qulluqçularının hazırlığı sahəsindəki praktiki təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi;
- dövlət qulluqçularının təhsil və peşəkarlıq səviyyələrinə irəli sürülən əsas tələblərin işlənib hazırlanması;

- idarəetmə kadrları ehtiyatının formalaşdırılması və təlimi ilə bağlı elmi-metodik, ekspert tövsiyələrinin işlənib hazırlanması;

- dövlət qulluqçularının ixtisasının artırılması, təlimi ilə məşğul olan digər mərkəzlərə elmi-metodiki, informasiya, məsləhət yardımlarının göstərilməsi.

Akademiyada yüksək vəzifəli dövlət məmurlarının ixtisasının artırılması sahəsində bir çox işlər yerinə yetirilir, hər il burada nazirliklərin, dövlət komitələrinin, digər mərkəzi və yerli dövlət idarəetmə orqanlarının, yerli özünüidarəetmə orqanlarının məsul vəzifəli şəxsləri üçün kurslar təşkil olunur, müxtəlif mövzularda "dəyirmi masa"lar, seminar və konfranslar keçirilir. Burada faktiki olaraq ali siyasi-idarəetmə elitası formalaşdırılır. Uyğun olaraq mühazirələrin oxunması üçün ölkənin ən qabaqcıl elmi, idarəetmə və siyasi elitasının nümayəndələri, tanınmış elm və mədəniyyət xadimləri, dövlətin ali vəzifəli şəxsləri cəlb olunur.

Dövlət orqanları üçün kadr hazırlığı ilk növbədə bu kadrların cavab verməli olduğu peşəkarlıq səviyyəsinə tələblərin formalaşdırılmasını, bu səviyyəni təmin etməyə imkan verən tədris planları və proqramlarının olmasını tələb edir. Bu məqsədlə Akademiyada dövlət qulluqçularının "Dövlət və bələdiyyə idarəetməsi" ixtisası geniş profilli mütəxəssis kimi hazırlanması üçün xarici ölkələrin qabaqcıl tədris müəssisələrinin təcrübəsinin ətraflı təhlili və ümumiləşdirilməsi əsasında və Azərbaycanda dövlət idarəçiliyinin xüsusiyyətlərini nəzərə almaqla tədris planı işlənib hazırlanmış, fənlərin proqram və metodiki təminatı məsələləri həll olunmuş, 1999-cu ildən başlayaraq bu ixtisas üzrə ölkənin bütün ərazisini və dövlət idarəetmə orqanlarını təmsil edən dövlət qulluqçularının cəlb olunması yolu ilə kadr hazırlığına başlanılmışdır.

İxtisasartırma kursları dövlət qulluqçularının hazırlığının əsas növlərindən biri hesab olunur. Akademiyada bu məqsədlə dövlət qulluğunda rəhbər vəzifələrdə çalışanlar üçün 9 istiqamət üzrə bir və iki həftəlik qısamüddətli ixtisasartırma kursları fəaliyyət göstərir. Hər il bu kurslara nazirliklərin, dövlət komitələrinin, digər mərkəzi və yerli idarəetmə orqanlarının, bələdiyyələrin məsul vəzifəli şəxsləri dəvət olunur. Onların iştirakı ilə seminar və konfranslar keçirilir. İxtisasartırma kurslarında mühazirələrin oxunması üçün ölkənin qabaqcıl elmi, idarəetmə və siyasi elitasının nümayəndələri, tanınmış elm və mədəniyyət xadimləri, dövlətin yüksək vəzifəli şəxsləri cəlb olunurlar.

Akademiyada dövlət idarəçiliyinin müxtəlif sahələri üzrə orta təhsil bazası əsasında bakalavr və magistr pilləsi üzrə ehtiyat kadrların hazırlanmasına da xüsusi diqqət yetirilir. Bu sahədə əldə olunan nailiyyətlər çox diqqətə layiqdir. Akademiya artıq bir neçə ildir ki, ölkənin ali təhsil müəssisələri arasında öz reytinqinə görə birinciliyi əldə saxlayır. Qəbulun nəticələrinə görə hər il ən yüksək bal toplayaraq Prezident təqaüdünə layiq görülən 100 tələbədən 25-30 nəfəri Dövlət İdarəçilik Akademiyasına qəbul olunur. Bu gün Akademiyanın tələbələri sırasında 100 nəfərdən çox Prezident təqaüdçüsü təhsil alır. Əgər Akademiyaya qəbulun hər il cəmi 200 nəfər olduğunu nəzərə alsaq bunun çox yüksək nəticə olduğunu söyləyə bilərik. Akademiyanın məzunlarının böyük bir hissəsi hər il test imtahanlarından müvəffəqiyyətlə keçərək öz təhsillərini magistratura pilləsində davam etdirir, dövlət qulluğuna qəbul olunurlar.

Akademiyada tədris prosesinin, təhsil proqramlarının reallaşdırılmasının texnologiyası və mexanizmləri ilə bağlı deyə bilərik ki, burada klassik metodlarla tələbə və müdavimlərin idarəetmə sahəsində zəruri olan analitik bacarıqlarını inkişaf etdirməyə imkan verən müasir innovasiyalı təlim metodlarından geniş istifadə olunur, kompüter sistemlərinin köməyi ilə yeni informasiya texnologiyaları fəal şəkildə təhsil prosesinə daxil edilir. Akademiyada tədris prosesi müasir tələblərə cavab verən texnika, kitabxana, kompüter zalları, tədris auditoriyaları ilə təchiz edilmişdir.

Akademiyada dövlət idarəetməsinin aktual problemlərinin araşdırılması sahəsində geniş elmi-tədqiqat işləri yerinə yetirilir, dövlət idarəçiliyinin nəzəri və praktiki sahələrində elmi tədqiqatlara, tədris prosesinin elmi-tədqiqat fəaliyyəti ilə əlaqələndirilməsi sahəsindəki işlərə xüsusi diqqət yetirilir "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" adlı jurnal nəşr olunur.

Akademiyada bir sıra istiqamətlər üzrə ixtisaslaşdırılmış elmi şuralar, doktorantura şöbəsi, "Geostrateji araşdırmalar mərkəzi", tələbə elmi cəmiyyəti fəaliyyət göstərir. Akademiya dəfələrlə irimiqyaslı forumların, beynəlxalq və respublika əhəmiyyətli seminar və konfransların, "dəyirmi masa"ların, treninqlərin təşkilatçısı olmuşdur.

Akademiyada dövlət qulluğu üçün kadr hazırlığı sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, respublikamızın milli və yerli xüsusiyyətlərini nəzərə almaqla bu təcrübədən yaradıcı şəkildə istifadə olunması sahəsində əhəmiyyətli işlər görülmüş, Akademiyanın beynəlxalq əlaqələri xeyli genişlənmişdir. Xarici ölkələrin təhsil müəssisələri ilə uzunmüddətli əməkdaşlıq münasibətlərinin yaradılması, qabaqcıl Qərb ölkələrinin dövlət idarəetmə modelləri ilə tanışlıq məqsədi ilə DİA Türkiyə, Fransa, İspaniya, Kanada, Ukrayna, Belarus, Litva kimi dövlətlərin uyğun tədris müəssisələri ilə müqavilələr bağlamış, geniş əlaqələr yaratmışdır.

Beləliklə, Akademiya dövlət idarəçiliyinin bütün səviyyələri üçün müasir idarəetmə təfəkkürünə malik kadrlar hazırlamaqla, idarəetmə mədəniyyətinin, dövlətçilik əxlaqının formalaşmasına kömək etməklə respublikamızda dövlət quruculuğu prosesində fəal iştirak edir. Akademiyada idarəetmə sahəsində kadrların yenidən hazırlanılmasının elə sistemini formalaşdırmağa çalışılır ki, bu yüksək peşəkarlıq səviyyəsini, nəzəri və praktiki biliklərin əldə edilməsini, vərdişlərin və özünüinkişaf təcrübəsinə nail olunmasını təmin etməklə yanaşı, tədris prosesinin təşkilati, psixoloji, peşəkarlıq, elmi və texniki komponentlərini sintez edə bilsin.

Dövlət siyasətinin işlənib hazırlanmasının yeni prosedurlarının tətbiqi dövlət qulluqçularından siyasətin təhlili, strateji planlaşdırma, siyasətin əlaqələndirilməsi kimi yeni vərdiş və bacarıqlar tələb edir ki, onlar inkişaf etdirilməzsə bütün struktur dəyişikliklərindən, funksiyaların bölünməsindən arzulanan nəticələri əldə etmək mümkün olmaz. Ona görə də dövlət qulluqçularında bu vərdiş və qabiliyyətlərin formalaşmasını təmin etmək üçün xüsusi təlim proqramları tərtib olunur və bu işə mütəxəssislər cəlb edilir. Dövlət qulluqçularının idarəetmə fəaliyyətinə hazırlanmasına, qərar qəbuluna, siyasətin işlənib hazırlanması və təhlilinə, strateji idarəetməyə, dövlət idarəetməsinin islahatlarına, liderlik nəzəriyyəsi və praktikasına və sairəyə xüsusi diqqət yetirilir. Bu məqsədlə Akademiyanın professor-müəllim heyəti tərəfindən "Strateji idarəetmə", "Strateji planlaşdırma", "Büdcə proqramlaşdırılması", "Elektron hökumətin formalaşdırılması", "Dayanıqlı inkişaf" kimi tədris modullarının işlənib hazırlanması və tədris prosesinə tətbiqi nəzərdə tutulmuşdur. Akademiyada dövlət qulluqçusunun imicinin formalaşdırılması kimi maraqlı və aktual mövzu üzərində işlər aparılır.

Hazırkı dövrdə informasiya axınlarının güclənməsi elə təlim metodlarının tətbiq olunmasını tələb edir ki, onlar qısa müddət ərzində kifayət qədər biliklər verməyə, dinləyicilərin öyrənilən materialı yüksək səviyyədə mənimsəməsini və onun praktikada möhkəmləndirilməsini təmin etməyə geniş imkan yarada bilsin. Dünyanın qabaqcıl tədris müəssisələrində rəhbər kadrların ixtisasının artırılması sistemində treninq, proqramlaşdırılmış kompüter təlimi, modelləşdirmə, qrupda tədris diskussiyaları, seminar-konfranslar case-study (konkret, praktiki situasiyaların təhlili), işgüzar və rollu oyunlar kimi interaktiv təlim metodlarına daha çox üstünlük verilir ki, burada əsas diqqət ötürülən biliklərin, bacarıqların və vərdişlərin praktiki işlənilməsinə yönəldilir. İnteraktiv təlim metodları müxtəlif səviyyə rəhbərlərinin problemi strukturlaşdırmaq, informasiyanı toplamaq və təhlil etmək, zəruri hallarda həm fərdi iş prosesində, həm də digər işçilərlə qarşılıqlı fəaliyyət şəraitində alternativ qərar variantlarını hazırlamaq və onların içərisində optimal variantı seçmək bacarıqlarını inkişaf etdirir. Bu baxımdan Akademiyada da interaktiv təlim metodlarından istifadəni genişləndirməyə, onların metodiki informasiya təminatı məsələlərini həll etməyə çalışırıq.

Fikrimizcə Azərbaycanda idarəetmə kadrlarının hazırlığının (xüsusilə dövlət qulluğu üçün) perspektivlərini müəyyənləşdirən başlıca istiqamətlər aşağıdakılardan ibarət ola bilər:

- dövlətin inkişafını, onun funksiya və vəzifələrinin inkişafını və təkmilləşdirilməsini nəzərə almaqla kadr hazırlığının qabaqcıl xarakterinin təmin edilməsi;
- dövlət təhsil standartlarına əməl olunması, bütün təlim növlərinin, forma və metodlarının çevik şəkildə tətbiq olunması, təlim prosesinin intensivləşdirilməsi və optimallaşdırılması əsasında onun məqsədəuyğun inkişafına nail olunması;
- dövlət qulluğuna yeni qəbul olunmuş dövlət qulluqçularının və kadr ehtiyatlarının hazırlanmasının və ixtisasının artırılmasının təkmilləşdirilməsi;
- "Dövlət və bələdiyyə idarəetməsi", iqtisadiyyat, hüquq ixtisasları üzrə, həmçinin humanitar, sosial və kadr siyasəti sahələri üzrə dövlət qulluqçularının hazırlanmasının, yenidən hazırlanmasının və ixtisasının artırılmasının genişləndirilməsi.

İdarəetmə kadrlarının hazırlığının və ixtisasının artırılması sisteminin təkmilləşdirilməsi üçün mütəxəssislərin və ixtisasların hazırlanmasının səviyyə və istiqamətlərini, təlimin həcmi və müddətlərinin, bu sahədə hazırlığın dövlət keyfiyyət standartlarını təmin edəcək tədris proqramlarının təkmilləşdirilməsi tələb olunur. Belə bir sistemin yaradılması zamanı zənnimizcə aşağıdakılar nəzər alınmalıdır:

- dövlət qulluqçularının peşəkar hazırlığı prosesində onların idarəetmə fəaliyyətinə hazırlanmasına, qərar qəbuluna, siyasətin işlənib hazırlanması və təhlilinə, strateji idarəetməyə xüsusi diqqət yetirilməsi;
- təhsil səviyyəsi, ixtisaslaşma istiqaməti, vəzifə və peşəkar ixtisas xüsusiyyətlərindən asılı olaraq kadrların təlimi üçün seçmə normativlərin tətbiq edilməsi;
- sahə, regional və yerli səviyyələrdə dövlət qulluğunun xüsusiyyətlərini nəzərə almaqla kadrların hazırlıq və ixtisasının artırılması, xüsusilə də rəhbər və mütəxəssislərin hazırlığı üçün təhsil müəssisələrinin vəzifə və səlahiyyətlərinin dəqiq müəyyən edilməsi;
- dövlət qulluğu üçün kadr hazırlayan təhsil müəssisələrinin məzunlarının əldə etdiyi peşəkarlıq potensialından səmərəli istifadə etmək üçün onların işlə təminatına zəmanətlərin verilməsi;

- dövlət orqanlarının büdcəsində işçilərin peşəkar hazırlığının yaxşılaşdırılmasını stimullaşdırmaq məqsədi ilə xüsusi xərc maddələrinin nəzərdə tutulması;
- dövlət qulluğu üçün kadr hazırlığı müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması;
- dövlət qulluğu kadrlarının xaricdə təhsil alması proqramının işlənib hazırlanması;
- dövlət qulluqçularının hazırlığı, yenidən hazırlanması və ixtisasının artırılması sistemində dövlət idarəetmə sisteminin islahatlarının ən aktual məsələlərinin dərindən öyrənilməsinin təmin edilməsi və sairə.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2010-cu il 10 fevral tarixdə "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" fərman imzalamışdır. Bu fərmanın icrası yuxarıdakı məsələlərin bir qisminin həllinə imkan yaradacaqdır. Fərmanda qeyd edilir ki, respublikamızın ali təhsil müəssisələrində kadr hazırlığı 2010-2011-ci tədris ilindən başlayaraq dövlət büdcəsinin vəsaiti hesabına dövlət sifarişi əsasında həyata keçiriləcək. Dövlət sifarişinin formalaşdırılması ölkənin milli, mədəni, humanitar və tarixi dəyərləri, mövcud əmək bazarının xüsusiyyətləri və dövlətin perspektiv inkişafı amilləri nəzərə alınmaqla təmin olunacaqdır. Mülkiyyət formasından asılı olmayaraq qanunvericiliyə uyğun fəaliyyət göstərən bütün ali təhsil müəssisələri dövlət sifarişinin yerinə yetirilməsində iştirak edə bilərlər.

Respublikanın ali təhsil müəssisələrində dövlət sifarişi ilə kadr hazırlığı adambaşına maliyyələşdirmə prinsipi əsasında təşkil olunacaq və bunun üçün xarici ölkələrin bu sahədə qabaqcıl təcrübəsini nəzərə almaqla adambaşına maliyyələşdirmə mexanizmi işlənib hazırlanacaqdır. Dövlət sifarişi ilə tələbə qəbulu Nazirlər Kabineti tərəfindən təsdiq olunan proqnozlar əsasında müəyyənləşdiriləcəkdir. Hər il üçün ayrı-ayrı ixtisaslar üzrə ali təhsil müəssisələrinin bakalavr və magistratura səviyyələrinə dövlət sifarişi aidiyyəti dövlət orqanları ilə razılaşdırılmış təkliflər əsasında müəyyənləşdiriləcək, Nazirlər Kabineti dövlət sifarişinə uyğun olaraq bu təkliflər əsasında hər il üçün ayrı-ayrı ixtisaslar üzrə ali təhsil müəssisələrinin bakalavr və magistratura səviyyələrinə tələbə qəbulunun proqnozunu təsdiq edəcəkdir. Ali təhsil müəssisələrinə qəbul imtahanları nəticəsində müxtəlif ixtisaslar üzrə dövlət sifarişi ilə təhsil almaq hüququnu qazanan abituriyentlər mülkiyyət formasından asılı olmayaraq təhsil alacaqları ali təhsil müəssisəsinin seçimində sərbəstdirlər.

İdarəetmə kadrlarının hazırlanmasının və ixtisasının artırılmasının səmərəli sisteminin formalaşması fasiləsiz təhsil konsepsiyasının reallaşdırılmasını ən aktual məsələlərdən biri kimi qarşıya qoyur. Müasir dövrdə dövlət qulluğu kadrlarının ixtisasının artırılmasının fasiləsizliyini təmin edən əsas təlim formaları aşağıdakılardan ibarətdir: dövlət qulluqçularının peşəkar ixtisasartırma proqramları əsasında təlimi; sistematik müstəqil öyrənmə (özünütəlim); daimi fəaliyyət göstərən tematik seminarlar; qısamüddətli tematik seminarlar; müxtəlif dövlət orqanlarında, o cümlədən xarici ölkələrdə stajkeçmə. İdarəetmə kadrlarının zəruri nəzəri biliklər əldə etməsi ilə yanaşı inkişaf etmiş ölkələrin idarəetmə strukturlarından əsaslı və məqsədyönlü staj keçməsinin təşkili xüsusi əhəmiyyət kəsb edir. Staj keçmə zamanı dövlətin qulluqçularının konkret situasiyalarda müxtəlif kadr texnologiyalarının tətbiqi ilə bilavasitə iş yerlərində tanış olmaq, dövlət qulluqçularının attestasiyasında, müsabiqə imtahanlarının keçirilməsində, işçilərin təlimində iştirak etmək kimi məsələlər staj keçmə planında nəzərdə alınmalıdır.

Əgər bu gün Azərbaycanda dövlət qulluqçularının hazırlığı, yenidən hazırlanması və ixtisasının artırılması sisteminin orta və aşağı təsnifata uyğun dövlət qulluqçularını müəyyən dərəcədə əhatə etdiyini söyləyə biləriksə, ali vəzifələrdə çalışan dövlət qulluqçuları bu sistemdən demək olar ki, bir növ kənarda qalmışdır. Ona görə də dövlət qulluğu sistemində rəhbər kadrların peşəkar hazırlığı və inkişaf etdirilməsi məsələlərinə xüsusi diqqət yetirilməlidir. Dövlət qulluqçularının, dövlət müəssisələrinin rəhbərlərinin hazırlığı, yenidən hazırlığı və ixtisasının artırılmasını həyata keçirmədən yüksək peşəkarlığa nail olmaq mümkün deyil. "Dövlət qulluğu haqqında" qanunda qeyd edilir ki, dövlət qulluqçuları daim öz peşəkarlığını artırmalıdırlar və bunun üçün onlara şərait yaradılmalıdır.

Cəmiyyətin sürətlə dəyişən mühitdə davamlı sosial-iqtisadi inkişafı məsələsi təhsil sisteminin bu proseslərə çevik və dinamik uyğunlaşmasını tələb edir. Müasir şəraitdə təhsil sistemi təhsil alanlara yalnız zəruri biliklərin verilməsi ilə kifayətlənməməli, eyni zamanda biliklərin daimi və sürətlə yeniləşdiyi bir vaxtda onlarda biliklərə fasiləsiz olaraq müstəqil yiyələnə bilmək sahəsində vərdişlər və tələbatların formalaşmasına çalışmalıdır. Dövlət qulluğu kadrlarının hazırlığı sisteminin yenidən qurulması problemin səmərəli həlli, onun yeni informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə etməklə inkişaf etdirilməsini, distant təhsil sisteminin tətbiqini zəruri edir. Belə bir sistem yaradılarkən distant təhsilə sadəcə mövcud dövlət qulluğu kadrlarının hazırlığı və yenidən hazırlığı sisteminə müasir telekommunikasiya və kompüter texnologiyalarının tətbiqi kimi deyil, həm də idarəetmənin informasiya mədəniyyəti tələblərinə cavab verən idarəetmə kadrlarının hazırlığının yeni təhsil sistemi kimi baxmaq lazımdır. Azərbaycanda dövlət qulluqçularının hazırlığı və yenidən hazırlığı sistemində distant təhsil hələlik layihələndirmə mərhələsindədir.

İdarəetmə kadrlarının hazırlığı sistemində ən aktual məsələlərdən biri idarəetmə kadrlarının elmi səviyyəsini artırmaq, bu sahədə elmi kadrların çatışmazlığını aradan qaldırmaq üçün doktorantura yolu ilə yüksək ixtisaslı kadr hazırlığı sisteminin genişləndirilməsi, beynəlxalq elm məkanına inteqrasiyanı sürətləndirmək üçün dünyada qəbul olunmuş ixtisaslar və istiqamətlər üzrə kadr hazırlığını təmin etməkdir. Məsələn Ukrayna Respublikasında 1997-ci ildən “dövlət idarəetməsi” ayrıca elm və təhsil sahəsi kimi qəbul olunmuş, “dövlət idarəetməsi” ixtisası üzrə namizədlik və doktorluq elmi dərəcələri müəyyənləşdirilmiş, bu sahədə elmi kadrların formalaşdırılmasına başlanılmışdır. Hesab edirik ki, Ukrayna Respublikasının bu sahədə təcrübəsinin öyrənilməsi təqdirəlayiqdir. Bu baxımdan Azərbaycan Respublikasında elmi tədqiqatların müasir standartlar səviyyəsində aparılmasını, ölkənin elmi kadr potensialının artırılmasını və Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyasının təmin olunmasını daha da sürətləndirmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 9 fevral 2010-cu il tarixdə “Azərbaycan Milli Elmlər Akademiyasının gənc alimlərinin Avropanın elmi mərkəzlərində doktorantura təhsilinin maliyyələşdirilməsi haqqında” sərəncamının əhəmiyyətini xüsusi qeyd etmək istərdik. Bu sərəncam həmçinin Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 8 fevral tarixli fərmanı ilə Azərbaycan Respublikasının Elm, Mədəniyyət və Ədəbiyyat üzrə Dövlət Mükafatları komissiyasının yaradılması, komissiyanın tərkibinin və Əsasnaməsinin təsdiq edilməsi idarəetmə sahəsində gənc tədqiqatçı alimlərin yetişməsinə daha geniş imkanlar açır.

**Beləliklə, hesab edirik ki, yuxarıdakı məsələlərin reallaşdırılması idarəetmə kadrlarının hazırlanması sahəsində problemlərin həllinə, müasir tələblərə cavab verə biləcək idarəetmə kadrlarının yetişdirilməsi işinə kömək edərdi.**

“**Azərbaycan**“.-2010.-22 aprel.-N 85.-S.3

## AQRAR İNKİŞAFDA HEYDƏR ƏLİYEV İRSİ

**Eldar İBRAHİMOV,**
Milli Məclisin Aqrar siyasət komitəsinin sədri,
YAP İdarə Heyətinin üzvü

**Heydər Əliyev son 40 il ərzində Azərbaycan Respublikasında, keçmiş SSRİ məkanında və beynəlxalq aləmdə dərin, xoşniyyətli və unudulmaz iz qoymuş ən nüfuzlu dövlət və ictimai xadimdir. Hazırda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev fenomeni bütün dünyada etiraf edilir.**

Ulu öndər istər 1969-1982-ci illərdə Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrdə, istərsə də 1982-1987-ci illərdə SSRİ kimi super gücə malik nəhəng bir dövlətin rəhbərlərindən biri olduğu vaxtlar özünün idarəçilik istedadı, tükənməz enerjisi və misilsiz işgüzarlığı sayəsində geridə qalmış, həmişə tənqid edilən Azərbaycan Respublikasını keçmiş ittifaqın ən qabaqcıl respublikası kimi tanınmasına nail olmuş, sovetlər ittifaqında ən çətin, mürəkkəb layihələr onun rəhbərliyi altında uğurla həyata keçirilmişdir. Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi və böyük ümidi ilə suverenlik yolunda ilk addımlarını atan, lakin vətəndaş müharibəsi ilə üz-üzə qalan, özbaşınalıq və anarxiyanın hökm sürdüyü Azərbaycana ikinci dəfə rəhbərliyə gəldikdən sonra işlədiyi 10 il müddətində müstəqil ölkəmizi dünya xəritəsindən silinmək təhlükəsindən xilas etdi, onun tezliklə dünyanın inkişaf edən dövlətlərindən birinə çevrilməsinin, sosial-iqtisadi, siyasi və ictimai təməlini qoydu.

Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi 30 il ərzində dövlətçilik salnaməsində elə bir irs yaratmışdır ki, onun öyrənilməsinə, təbliğinə və tətbiqinə hələ uzun illər böyük ehtiyac olacaqdır və bu irs heç vaxt tükənməyəcəkdir. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin “Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyi haqqında” sərəncamında qeyd olunur ki, “1969-1982-ci illərdə həyatımızın bütün sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir. Ölkəmizin müstəqilliyinin və dünya iqtisadiyyatına inteqrasiya proseslərinin hazırkı möhkəm təməli Heydər Əliyev tərəfindən həmin illərdə yaradılmış potensiala əsaslanır”. Ulu öndərimiz Heydər Əliyevin yaratdığı bu potensial və xalqına ərməğan etdiyi irs cəmiyyətin bütün təbəqələri üçün örnək olduğu kimi aqrar sahədə işləyənlər üçün də əvəzolunmazdır və ölkəmizin hazırda bu sahədə əldə etdiyi nailiyyətlər Heydər Əliyev irsinin təzahürüdür.

**Heydər Əliyev və Azərbaycanda aqrar sahənin formalaşması**

Keçən əsrin 70-ci illərinə qədər Azərbaycan kənd təsərrüfatı məhsullarının istehsal səviyyəsinə görə SSRİ-də ən geridə qalan respublikalardan biri idi. Kənd təsərrüfatının bütün sahələrində məhsuldarlıq çox aşağı olmaqla yanaşı torpaqlardan səmərəli istifadə olunmurdu, kolxoz və sovxozların əksəriyyəti ziyanla işləyirdi, elmin və texnikanın tətbiqi hiss olunmurdu, kadr hazırlığı bərbad vəziyyətdə idi. Kənd təsərrüfatı maşınqayırma və kimya sənayesinin inkişafı haqqında heç düşünən də yox idi. Meyvə, tərəvəz, çay və digər məhsulların emalı özbaşına buraxılmış, ət, süd, pambıq və digər məhsulların emalı isə primitiv sexlərdə çox cüzi miqdarda həyata keçirilirdi. 1969-1982-ci illərdəki fəaliyyəti dövründə Heydər Əliyev Azərbaycanda aqrar-sənaye kompleksinin yaradılmasına nail oldu. Məhz həmin dövrdə respublikada aqrar-sənaye kompleksi kimi qəbul edilmiş bu sahənin hər üç bölməsi yüksək sürətlə inkişaf etdi və onların inteqrasiyası təmin olundu. Əlbəttə, belə yüksək nailiyyətlərin əldə edilməsi üçün öncə kənd təsərrüfatı məhsullarının istehsalının artırılması təmin edilməli idi. Bu artım isə Heydər Əliyevin yüksək idarəçilik qabiliyyəti, tələbkarlığı, işgüzarlığı və əzmkarlığı, məsələni daim nəzarətdə saxlaması və problemə dərindən nüfuz edərək onun elmi əsaslara söykənən həllini təşkil etməsi sayəsində mümkün oldu. Heydər Əliyev respublikanın kənd təsərrüfatında mövcud olan potensial imkanların müvafiq proqramlar əsasında reallaşdırılması gələcək inkişafın mühüm istiqaməti kimi qiymətləndirdi və ittifaq hökumətinin bu məsələyə dair bir neçə qərar qəbul etməsinə nail oldu. Qısa müddət ərzində respublikada kənd təsərrüfatının bütün sahələrində əsaslı dönüş yarandı, məhsul istehsalının dinamik artımı təmin edildi. Artıq 1974-1975-ci illərdə Azərbaycan kənd təsərrüfatı məhsulları istehsalının artım sürətinə görə SSRİ-də ön sıraya çıxdı, hər il yeni uğurlar əldə edilməsi ənənə halını aldı. Bununla da Heydər Əliyev ittifaqa sübut etdi ki, onun rəhbərliyi altında Azərbaycan xalqı kənd təsərrüfatının inkişaf etdirilməsində yeni zirvələr fəth etməyə qadirdir və bu sahəyə yönəldilən sərmayə qısa müddətdə öz bəhrəsini verir. Heydər Əliyev respublikamızda kənd təsərrüfatının inkişafının növbəti mərhələsini və istiqamətlərini özünəməxsus uzaqgörənliklə çox düzgün və dəqiq müəyyən edərək növbəti tədbirlər həyata keçirməyə başladı. Bu tədbirlər isə bitkiçilik və heyvandarlıqda məhsuldarlığı artırmaqla həmin sahələrin intensivləşdirilməsini, bitkiçilikdə daha çox əlavə dəyər yaradan pambıqçılığın və üzümçülüyün prioritet sahə elan edilməsini, yeni texnikanın və məhsul istehsalında sənaye

texnologiyasının tətbiqi və digər məsələlərin həll olunmasını əhatə edirdi. Həyata keçirilən bu tədbirlər nəticəsində respublikamızda çoxsaylı quşçuluq fabrikləri, heyvandarlıq kompleksləri, yem sexləri, müasir texnika ilə təchiz edilmiş bitkiçilik müəssisələri yaradıldı və məhsul istehsalı yeni inkişaf mərhələsinə başladı.

Həmin illərdə həyata keçirilən ən mühüm tədbirlərdən biri də kənd təsərrüfatı məhsulları istehsalının artırılması ilə yanaşı ona xidmət edən sahələrin, yəni kənd təsərrüfatı maşınqayırma və kimya sənayesinin inkişafının təmin edilməsi idi. Bu məqsədlə Bakıda və respublikamızın bir çox bölgələrində kənd təsərrüfatı maşınları və avadanlıqları istehsal edən, habelə traktor və digər kənd təsərrüfatı texnikasının təmiri ilə məşğul olan zavodlar tikilib istifadəyə verildi. Sumqayıtda mineral gübrələr və aqrokimyəvi maddələr istehsalı təşkil edildi ki, onlar da kənd təsərrüfatı müəssisələrinin günü-gündən artan tələbatını daha dolğun və vaxtında ödəməyə imkan verirdi.

Kənd təsərrüfatı məhsulları istehsalının dinamik artımı məhsulun emalının mövcud tələblər səviyyəsində təşkil edilməsini ön plana çəkdi. Heydər Əliyev ittifaq hökumətindən Azərbaycanda kənd təsərrüfatı məhsullarının emalı sənayesinin geniş vüsət almasını təmin edən qərarların qəbul edilməsini tələb etdi və buna nail oldu. Ulu öndərin həmin qərarların icrasına bilavasitə rəhbərliyi və nəzarəti sayəsində bu sahədə inanılmaz nailiyyət əldə edildi. Qısa müddət ərzində demək olar ki, bütün iri üzümçülük təsərrüfatlarında emal zavodları fəaliyyətə başladı, yeni tərəvəz və meyvə emalı zavodları, çay fabrikləri, ət və süd kombinatları tikilib istifadəyə verildi. Kənd yerlərində emal müəssisələrinin yaradılması həmin ərazilərin simasının dəyişməsində, şəhər atributlarının bərqərar olmasında, rayon əhalisinin intellektual səviyyəsinin yüksəlməsində böyük rol oynayır. Azərbaycan pambıq istehsalında ittifaqda üçüncü yerə, üzüm istehsalında isə birinci yerə çıxmaqla özünü geniş əhatəli inkişaf etmiş aqrar-sənaye kompleksinə malik respublika kimi göstərdi. Bununla da 1969-1982-ci illərdə Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan geridə qalan bir diyardan formalaşmış aqrar-sənaye kompleksi olan qabaqcıl respublikaya çevrildi. Bu isə ittifaqda Heydər Əliyevin böyük nüfuz qazanmasına və Azərbaycanın özünə layiq yer tutmasına səbəb oldu.

**Heydər Əliyev və aqrar islahatlar**

Bünövrəsi Heydər Əliyev tərəfindən qoyulan və inkişaf etdirilən aqrar-sənaye kompleksi Azərbaycanın iqtisadiyyatında əhəmiyyətli sahəyə çevrilməklə ittifaq miqyasında da ön sıraya çıxdı. Belə ki, 1984-ci ildə Azərbaycan üzüm istehsalını 1 milyon 126 min tona çatdıraraq SSRİ-də birinci yerə çıxdı. Həmin illər respublikamızda ümumi daxili məhsulun 35-40 faizini aqrar bölmə verirdi ki, onun da 20-25 faizi üzümçülüyün hesabına formalaşırdı. Sənaye üsulu əsasında aqrar sahənin inkişafı Azərbaycanda yeni mərhələyə qədəm qoydu.

Lakin ittifaq rəhbərliyində Heydər Əliyevi və Azərbaycan xalqını gözü götürməyənlər bu inkişafın qarşısını almaq, respublikamızda aparılan quruculuq işlərini ləngitmək və gələcəkdə daha uğurlu nəticələrin əldə olunmasına yol verməmək üçün müxtəlif yollar və vasitələrdən istifadə etməyə başladılar. Onlar məqsədlərinə çatmaq üçün alkoqolizmə qarşı mübarizə aparmaq adı altında üzümlüklərin sahəsini azaltmağın və şərab istehsalını dayandırmağın vacibliyini təbliğ etməyə başladılar və alkoqolizmə qarşı mübarizə barədə ittifaq üzrə qərarın qəbul edilməsinə nail oldular. Bu, əslində alkoqolizmə qarşı yox, Azərbaycanda Heydər Əliyev tərəfindən yaradılan və dinamik inkişaf edən aqrar bölmənin dağıdılmasına yönəlmiş bir siyasət idi. 1982-ci ildə Azərbaycanda üzümçülük və şərabçılığın inkişafına dair qərarın qəbul edilməsindən cəmi 2-3 il keçdikdən sonra belə bir addımın atılması və onun icra vəziyyətinin ilk olaraq alkoqolizmə düçar olanların sayına və alkoqollu içkilərin adambaşına istehlakına görə SSRİ-də ən aşağı göstəriciyə malik Azərbaycanda yoxlanılması və üzümçülük sahələrinin az bir müddət ərzində əhəmiyyətli dərəcədə azaldılması barədə konkret göstərişlərin verilməsi bu siyasətin tərkib hissəsi idi. Belə bir siyasətin ortaya atılması üzümçülüklə yanaşı, həm də bu sahənin inkişafına dair qərarla Azərbaycanda həyata keçirilməsi nəzərdə tutulan kənd təsərrüfatı tədbirlərinin, habelə kəndlərimizin simasını kökündən dəyişəcək infrastruktur layihələrin qarşısını almağa, respublikada turizmin inkişafına təkan verəcək qərarın icrasının dayandırılmasına yönəldilmişdi. Bütün bunlar onu deməyə əsas verir ki, Heydər Əliyevin yaratdığı aqrar bölmənin inkişafının əngəllənməsinə və onun dağıdılmasına keçən əsrin sonlarında bir tərəfdən SSRİ rəhbərliyi qəsdən start verilmiş, digər tərəfdən isə bu proses müstəqilliyinin ilk illərində Azərbaycana rəhbərlik edənlərin səriştəsizliyi nəticəsində davam etdirilmişdir.

1993-cü ildə Azərbaycanda yaranmış çox ağır, ictimai, siyasi və iqtisadi şəraitdə xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gələn Heydər Əliyev ilk növbədə Ermənistanla müharibənin dayandırılması və ölkədaxili sabitliyin bərqərar olması üçün ciddi tədbirlər həyata keçirməyə başladı. Tezliklə cəbhə xəttində atəşkəs elan edildi, dövlət çevrilişi cəhdlərinə son qoyuldu və ölkədə qayda-qanun, sabitlik təmin edildi. Bununla yanaşı Heydər Əliyevin rəhbərliyi və tapşırığı əsasında iqtisadiyyatda yaranmış böhrandan çıxış yolları axtarılır, xarici ölkələrin təcrübəsi öyrənilərək ölkəmizin xüsusiyyəti və xalqımızın mentaliteti nəzərə alınaraq, milli maraqların qorunması əsas götürülərək təhlillər aparılırdı. Bu təhlillər nəticəsində belə fikir formalaşdı ki,

ölkə iqtisadiyyatını, o cümlədən aqrar bölməni bu çətin vəziyyətdən çıxarmaq üçün heç bir səmərə verməyən inzibati-amirlik metodundan əl çəkmək və bazar münasibətlərinə əsaslanan iqtisadi sistemə keçmək lazımdır. Bunun üçün islahatlar həyata keçirilməli, dövlətin mülkiyyətində olan əmlakın bir hissəsi özəlləşdirilərək xüsusi mülkiyyətə verilməlidir ki, ölkədə sahibkarlıq inkişaf etsin. Bununla əlaqədar hələ 1994-cü ilin sentyabr ayında keçirdiyi müşavirədə ulu öndər Heydər Əliyev demişdir: “Kənd təsərrüfatı sahəsində gələcək inkişafımız yalnız və yalnız iqtisadi islahatların həyata keçirilməsi ilə bağlıdır. Gecikmək olmaz. Bu mənim üçün əsas prinsipdir. Mən bu prinsipdən geri çəkilməyəcəyəm. Kim müqavimət göstərmək, yaxud mühafizəkarlıq etmək istəyirsə, biz onlara yol verməyəcəyik”.

Həmin dövrdə öz müstəqilliyinə yeni qovuşmuş Azərbaycanda iqtisadiyyatın bütün sahələrində, xüsusilə aqrar bölmədə çox acınacaqlı vəziyyət hökm sürürdü. Maddi təchizatın pozulması səbəbindən aqrotexniki tədbirlərin vaxtında həyata keçirilməməsi məhsuldarlığın aşağı düşməsinə və məhsul istehsalının azalmasına səbəb olmuşdu. Bu da öz növbəsində aqrar-sənaye kompleksinin maşınqayırma və kimya sənayesi bölməsinə, eyni zamanda emal sənayesinə öz mənfi təsirini göstərir, müəssisələr tam gücü ilə işləyə bilmirdi. Belə vəziyyətdə müəssisələr bağlanır, işsizlik artır və əhalinin ərzaqla təminatında yaranmış çətinliklər aclıq təhlükəsini getdikcə artırırdı. Belə bir vaxtda ulu öndər Heydər Əliyev ərzaq təhlükəsizliyinin təmin edilməsinin əsas istiqaməti kimi iqtisadi islahatlara ilk növbədə aqrar bölmədən başlamağın zəruri olduğunu göstərərək onun hüquqi bazasının yaradılması haqqında göstərişlər verdi. Heydər Əliyev keçirdiyi görüşlərdə və müşavirələrdə dəfələrlə qeyd edirdi ki, ölkəmizdə həyata keçiriləcək aqrar islahatlar öncə Azərbaycan xalqının milli mənafeyinə xidmət etməli, maraqlı tərəflər üçün ağrısız aparılmalı və ədalət prinsipinə əsaslanmalıdır. Heydər Əliyevin bilavasitə rəhbərliyi və iştirakı ilə hazırlanan, geniş və hərtərəfli müzakirə edilən “Aqrar islahatın əsasları haqqında” və “Sovxoz və kolxozların islahatı haqqında” qanun layihələri 1995-ci ildə, “Torpaq islahatı haqqında” qanun layihəsi isə 1996-cı ildə qəbul edildi. Bununla da 1996-cı ildən başlayaraq ölkədə MDB məkanında analoqu olmayan aqrar islahatlar başlandı. Vahid torpaq fondunun 57 faizi dövlət mülkiyyətində qalmaqla 20 faizi bələdiyyə mülkiyyətinə və 23 faizi xüsusi mülkiyyətə verildi. Xüsusi mülkiyyətə əsasən ən qiymətli torpaqlar, yəni əkin və çoxillik əkmələr altında olan torpaqlar verildi ki, bu da aqrar sahədə sahibkarlığın inkişafına öz müsbət təsirini göstərdi.

Aqrar islahatların aparılması və Heydər Əliyevin həyata keçirdiyi təşkilati, siyasi və digər tədbirlər tezliklə öz bəhrəsini verməyə başladı və aqrar sahədə dönüş yaranmasına səbəb oldu. 1996-cı ildən başlayaraq kənd təsərrüfatı məhsulları istehsalında 1991-ci ildən davam edən tənəzzülə son qoyuldu və ildən ilə artım əldə edildi. Onu da qeyd etmək lazımdır ki, həmin vaxtdan ötən 14-15 il ərzində keçmiş ittifaq respublikaları olmuş müstəqil dövlətlərdən fərqli olaraq Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının ümumi həcmində heç vaxt azalma olmamışdır. Ölkəmiz artıq 1990-cı ilin səviyyəsini arxada qoymuş, heyvandarlıq və bitkiçilik sahəsində rekord nəticələr əldə etmişdir. Hazırda Azərbaycan əhalinin bir çox ərzaq məhsullarına, o cümlədən ət, kartof, tərəvəz, meyvə və digər məhsullara olan tələbatını yerli istehsal hesabına tam ödəyir. Başqa məhsullar üzrə isə xarici ölkələrdən asılılıq minimuma enib. Bu nailiyyətlər ümummilli lider Heydər Əliyevin uzaqgörən aqrar islahatlar siyasətinin uğurla həyata keçirilməsi və onun Prezident İlham Əliyev tərəfindən böyük əzmkarlıqla davam etdirilməsi sayəsində mümkün olmuşdur.

**Aqrar sahəyə dövlət himayəsi**

Uğurla həyata keçirilən aqrar islahatlar nəticəsində sovxoz və kolxozların torpaqları və əmlakı kənd əhalisinə paylanmaqla keçən əsrin sonlarında kənd yerlərində müxtəlif təşkilati-hüquqi formalı təsərrüfatlar yaranaraq fəaliyyət göstərməyə başladılar. Lakin ümummilli lider Heydər Əliyev çox yaxşı bilirdi ki, yalnız torpaqları və əmlakı xüsusi mülkiyyətə verməklə ölkədə bazar münasibətlərini formalaşdırmaq və kənd təsərrüfatında lazımi nəticələr əldə etmək mümkün deyil. Bunun üçün aqrar islahatların dərinləşdirilməsinə və kənd yerlərində yeni fəaliyyətə başlayan sahibkarlıq subyektlərinə dövlət himayəsinə böyük ehtiyac var. Odur ki, ulu öndər Heydər Əliyev 22 mart 1999-cu il tarixdə “Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında” fərman imzaladı. Fərmana uyğun olaraq Nazirlər Kabineti kənd təsərrüfatı məhsulu istehsalçılarına dövlət büdcəsi hesabına güzəştli pərakəndə satış qiyməti ilə neft məhsullarının (benzin, dizel yanacağı və motor yağları) satılması barədə qərar qəbul etdi. Milli Məclis isə həmin fərmana əsasən təqdim edilmiş layihəni müzakirə edərək kənd təsərrüfatı məhsulları istehsalçılarının torpaq vergisi istisna olmaqla digər vergilərdən azad edilməsi barədə qanun qəbul etdi. Qeyd etmək lazımdır ki, Heydər Əliyevin tapşırığı və təşəbbüsü ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərilən bu güzəştlər digər MDB ölkələrində nəinki həmin dövrlərdə, heç hazırda da tətbiq edilmir.

Sözügedən fərmanda Prezident aqrar sahəyə dövlət himayəsini genişləndirmək üçün bu bölmədə maliyyə, kredit, bank, vergi, qiymət, daxili bazarın qorunması tədbirlərini nəzərdə tutan, aqrar islahatların ikinci mərhələsini təmin edən proqramın hazırlanmasına dair konkret göstərişlər də vermişdir. Bununla əlaqədar

müvafiq icra orqanları həmin proqramı hazırladılar və 1999-cu ilin noyabr ayında "1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair Dövlət Proqramı haqqında" fərman imzalandı. Fərmanda göstərilirdi ki, kənd təsərrüfatının inkişaf etdirilməsi dövlətin iqtisadi siyasətində mərkəzi yer tutur. Proqramın böyük bir bölməsi aqrar sahədə sahibkarlığın inkişafına dövlət yardımı adlanırdı. Bu bölmədə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu:

- mülkiyyət formasından asılı olmayaraq kənd təsərrüfatı məhsulları istehsalçılarının əmlakının sığorta edilməsi;
- keçmiş sovxoz, kolxoz və digər kənd təsərrüfatı, habelə meliorasiya və irriqasiya xidməti müəssisələrinin vaxtı keçmiş bank ssuda və digər borcların restrukturaziyası və ödənilməsinin təmin edilməsi;
- aqrar sahəyə güzəştli şərtlərlə kredit resursları ayrılması;
- daxili bazarın və yerli istehsalçıların mənafeyinin qorunmasını təmin etmək məqsədi ilə ərzaq və kənd təsərrüfatı məhsullarının idxalı üzrə gömrük rüsumunun təkmilləşdirilməsi;
- dövlət ehtiyaclarını ödəmək üçün mühüm kənd təsərrüfatı məhsullarının (taxıl məhsulları, ət və ət məhsulları, süd və süd məhsulları, yumurta, balıq məhsulları, kartof və tərəvəz) istehsalının stimullaşdırılması;
- ölkənin ayrı-ayrı bölgələrində kənd təsərrüfatı məhsullarının topdansatış şəbəkələrinin yaradılması və onların müvafiq maddi-texniki baza ilə təmin olunması;
- yüksək məhsuldar texnologiya, cins toxum və damazlıq, habelə baytarlıq sahəsində aparılan işlərin maddi-texniki bazasının möhkəmləndirilməsi və digər tədbirlər.

Ulu öndərin təsdiq etdiyi bu proqrama uyğun olaraq aqrar sahəyə nəzərdə tutulan dövlət himayəsi tədbirləri ölkə iqtisadiyyatının möhkəmləndirilməsinə paralel həyata keçirilir. Milli Məclis tərəfindən qəbul edilən və Prezident tərəfindən imzalanan "Torpaqların münbitliyi haqqında", "Taxıl haqqında", "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında" qanunlarda və onların icrasını təmin edən normativ hüquqi aktlarda aqrar sahənin dövlət himayəsinə dair konkret müddəalar öz əksini tapmışdır.

Ümummilli liderin ölkənin aqrar bölməsinə göstərdiyi qayğı və diqqət, onun imzaladığı fərmanların tam həcmdə icrası bu gün Prezident İlham Əliyev tərəfindən daim nəzarətdədir. Ümumiyyətlə, aqrar sahəyə dövlət himayəsi cənab İlham Əliyevin prezidentliyi dövründə daha da genişlənmişdir. Prezident aqrar sahədə sahibkarlığın inkişafını stimullaşdıran bir çox qanunların qəbul edilməsi təşəbbüsü ilə çıxış etmiş, çoxsaylı fərmanlar imzalamış və dövlət proqramları təsdiq etmişdir. 2003-cü ilin noyabr ayında Nazirlər Kabinetinin iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Kənd təsərrüfatında aparılan islahatların nəticəsində böyük uğurlar qazanılmışdır. Torpaq özəl mülkiyyətə verilibdir. Bu ənənə davam etməlidir və kənd təsərrüfatında islahatların ikinci mərhələsi başlanmalıdır".

Aqrar islahatların ikinci mərhələsində isə əsas diqqət kənd ərazilərində infrastrukturun və bilavasitə kənd təsərrüfatına xidmət edən sahələrin inkişafını təmin edən tədbirlərin həyata keçirilməsi, kənd təsərrüfatı məhsullarının saxlanması və emalı müəssisələri şəbəkələrin yaradılması, meliorasiya və irriqasiya işlərinin genişləndirilməsi, yeni məhsul istehsalı sahələrinin yaradılması və digər məsələlərin həllinə yönəldildi. Bu məqsədlə Prezidentin 2004-cü il fevralın 11-də imzaladığı "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" kənd rayonlarının və aqrar bölmənin inkişafında mühüm rol oynadı. Proqramın uğurla həyata keçirilməsi üçün hər il dövlət büdcəsindən ayrılan vəsaitin səmərəli istifadəsi nəticəsində aqrar bölmənin dinamik inkişafı təmin edildi.

Aqrar sektorun inkişafında idarəetmənin daim təkmilləşdirilməsinə ehtiyac olmasını, yeni texnika və texnologiyaların tətbiq edilməsinin müstəsna rolunu yüksək qiymətləndirən və rəqabət qabiliyyətli məhsul istehsalında bu amillərin dövlət dəstəyi olmadan reallaşmasının mümkünsüzlüyünü nəzərə alan dövlət başçısı 2004-cü ildə "Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" və "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbir haqqında" sərəncamlar imzaladı. Bu sərəncamlara uyğun olaraq yaradılmış "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə kənd təsərrüfatı texnikası, mineral gübrələr və damazlıq heyvanlar alınması üçün indiyə kimi 150 milyon manatdan çox büdcə vəsaiti ayrılmışdır. Həmin vəsait hesabına lizinq yolu ilə alınan traktor, kombayn və digər texnikalar kənd təsərrüfatı işlərinin vaxtında yerinə yetirilməsinə və itkilərin qarşısını almağa şərait yaratmış, istehsalda məhsuldarlığın yüksəldilməsinə müsbət təsir göstərmişdir. Prezidentin 2003 və 2008-ci illərdə imzaladığı qanunlarla isə kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında Azərbaycan Respublikası Qanununun qüvvədə olma müddəti 2014-cü il yanvarın 1-nə kimi uzadılmışdır ki, bu da fermerlərin səmərəli fəaliyyət göstərmələrinə geniş imkanlar yaradır.

Son illər Azərbaycanda ümumi daxili məhsul istehsalının və büdcə gəlirlərinin böyük sürətlə artması aqrar sahəyə daha böyük həcmdə dövlət vəsaiti yönəltməyə şərait yaratmışdır. Yaranmış əlverişli maliyyə

imkanlarından yararlanaraq qeyri-neft sektorunun prioritet sahəsi olan aqrar bölməyə dövlət himayəsi ildən-ilə artmaqdadır. Prezidentin 23 yanvar 2007-ci il tarixli sərəncamı ilə kənd təsərrüfatı məhsulları istehsalçılarının məhsul istehsalı üçün işlətdikləri yanacağın, motor yağlarının və mineral gübrələrin dəyərinin orta hesabla 50 faizi dövlət tərəfindən ödənilir, aqrolizinq xidmətinin əhatə dairəsi genişləndirilir. Lizinqə verilən texnikanın dəyərinin qaytarılma müddəti isə 5 ildən 10 ilədək uzadılıb. Bu sərəncama uyğun olaraq həmçinin sığortalanmasına maliyyə yardımı göstərilən kənd təsərrüfatı bitkilərinin sayı 7-yə çatdırılıb, sığorta haqqının büdcə vəsaiti hesabına ödənilən hissəsi 25 faizdən 50 faizə qaldırılıb.

Bütün dünyada olduğu kimi, ölkəmizdə də ərzaq təhlükəsizliyinin təmin edilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Hələ ulu öndər Heydər Əliyevin 2001-ci ilin mart ayında imzaladığı sərəncamla "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı" təsdiq edilmişdir. Həmin proqramın uğurla yerinə yetirilməsinə baxmayaraq respublika əhalisinin artımı, urbanizasiya meyllərinin güclənməsi və ölkə vətəndaşlarının orta aylıq əmək haqqının ildən-ilə yüksəlməsi kənd təsərrüfatı və ərzaq məhsullarına tələbatı artırır. Hazırda dünya ölkələrində 1 milyard adamın aclıq çəkməsi də hər bir dövlətin öz əhalisinin ərzaq təhlükəsizliyini təmin edən tədbirlər görməsini önə çəkir. Bu reallıq nəzərə alınaraq Prezidentin 2008-ci il 25 avqust tarixli sərəncamı ilə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" təsdiq edilmişdir. Proqramın icrası üçün 2009-cu ilin dövlət büdcəsindən 60 milyon manat vəsait ayrılmışdır. 2010-cu ilin dövlət büdcəsindən isə kənd təsərrüfatı əmlakının sığortalanması üçün sığorta haqqının dövlət büdcəsi hesabına ödənilən hissəsi, kənd təsərrüfatı məhsulları istehsalçılarına istifadə etdikləri yanacağın və motor yağının, habelə mineral gübrələrin dəyərinin 50 faizinin ödənilməsinə ayrılan vəsaitlər də daxil olmaqla bu proqramın icrasına 111 milyon 550 min manat vəsait xərclənməsi nəzərdə tutulur.

Məlum olduğu kimi, Prezidentin 2009-cu il 14 aprel tarixli fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Proqramda aqrar sahənin və kənd ərazilərinin inkişaf etdirilməsinə xüsusi diqqət verilir. Sənəddə kənd təsərrüfatı məhsulları istehsalının artırılması ilə yanaşı, həmin məhsulların emalı, tədarükü və satışının təkmilləşdirilməsi, bu sahələrin maddi-texniki, elmi və kadr bazasının yaxşılaşdırılması əsas hədəflərdəndir. Bu məqsədlə proqramda "Regionlarda kənd təsərrüfatı məhsullarının tədarükü üzrə infrastrukturun yaradılmasının və marketinq xidmətlərinin dəstəklənməsi", "Aqroemal müəssisələri şəbəkəsinin genişləndirilməsinin və kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin artırılması məqsədilə mütərrəqi texnologiyaların tətbiqinin dəstəklənməsi", "Cins heyvandarlıq komplekslərinin inkişaf etdirilməsi" və "Aqrofermaların yaradılmasının dəstəklənməsi", habelə digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Artıq bu tədbirlərin icrasına 2009-cu ildən etibarən başlanmışdır və hazırda uğurla davam etdirilir. Təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan aqrar inkişafa dövlət himayəsi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və Azərbaycan müasir aqrar-sənaye kompleksinə malik ölkəyə çevrilir.

**"Azərbaycan"**.-2010.-25 aprel.-N 88.-S.4.

# HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK TƏLİMİNDƏ ƏDƏBİYYAT SİYASƏTİ VƏ MÜASİR DÖVR

**İsa HƏBİBBƏYLİ,**
Milli Məclisin deputatı, akademik,
Naxçıvan Dövlət Universitetinin rektoru

**Tarix boyu böyük ədəbiyyat həmişə dünyanın qüdrətli dövlət xadimlərinin həyatında və siyasi fəaliyyətində mühüm yer tutmuşdur. Dövlət xadimlərindən bir çoxu dünya ədəbiyyatının ən fəal mütaliəçisi kimi fərqlənmişlər. Belə siyasi rəhbərlər hətta bədii ədəbiyyata dair bilik və informasiyaları ilə ziyalı mühitini heyrətləndirmişlər. Başqa qrup dövlət başçıları şeir həvəskarları olmuş, rəğbət bəslədikləri şairlərin əsərlərini ən ciddi məclislərdə əzbər söyləmişlər. Hətta tarixdə şeir yazan, dramatik əsərlərini teatrlara təqdim edən rəhbərlər də olmuşdur. Az da olsa ədəbiyyatdan, yazıçıdan uzaqda dayanan, bu sahəyə rəğbəti olmadığını gizlədə bilməyən ölkə başçıları haqqında da məlumatlar mövcuddur. Bütün bunlarla bərabər ədəbiyyatı dövlət siyasətinin üzvi tərkib hissəsi səviyyəsində qəbul edən, bu tükənməz xəzinədən milli siyasətin həyata keçirilməsində bacarıqla və yaradıcı şəkildə faydalanan dövlət xadimləri də olmuşdur.**

Görkəmli dövlət xadimi Heydər Əliyevin taleyində və siyasi fəaliyyətində ədəbiyyat faktorunun yeri, rolu və imkanları çox geniş anlayış olub, yuxarıda sadalanan prinsiplərin bir çoxunu özündə cəmləşdirir. Hər şeydən əvvəl onu qeyd etmək lazımdır ki, Heydər Əliyev dünyada geniş və sistemli ədəbiyyat biliyinə malik olan nadir dövlət xadimlərindəndir. Hələ gənclik illərindən etibarən qeyri-adi mütaliə qabiliyyəti ilə fərqlənən, hətta cavan yaşlarında tamaşalarda peşəkar teatr xadimləri ilə yanaşı cəsarətlə səhnəyə çıxan Heydər Əliyevin dünyabaxışının formalaşmasında ədəbiyyat amili xüsusi yer tutmuşdur. Bu tarixi şəxsiyyət bədii ədəbiyyatın şəxsi taleyindəki böyük rolunu özü də etiraf etmişdir. O, 1997-ci ildə, müstəqillik dövründə keçirilən Azərbaycan yazıçılarının onuncu qurultayındakı nitqində bu həqiqəti aşağıdakı kimi etiraf etmişdir: "Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm… mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum… O illərdə, o uşaqlıq və gənclik illərində onlar mənə o qədər təsir edib ki, mən onları unutmamışam. Bu "oxumuşam, unutmamışam" sözləri sadəcə bir fikir deyil. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam".

Heydər Əliyevin geniş həcmə malik olan şeirləri, poemalardan böyük parçaları, dramlarda əsas obrazların sözlərini əzbər bilməsi və bütün bunları uzun illər yaddaşında qoruyub saxlaması onun hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi qeyri-adi üstünlüyünün əsas göstəricilərindən biri idi. Siyasi-tarixi baxımdan möhtəşəm xəzinə kimi qabarıq şəkildə diqqəti cəlb edən Heydər Əliyevin bənzərsiz ədəbiyyat yaddaşına malik olması onun görkəmli dövlət xadimi obrazını əlavə cizgilərlə tamamlamış və zənginləşdirmişdir. Heydər Əliyev təkcə geniş və mükəmməl ədəbiyyat biliyi ilə deyil, həm də fenomenal ədəbiyyat yaddaşı ilə nəinki diqqəti cəlb etmiş, hətta çox hallarda ətrafındakıları heyrətləndirmiş və təəccübləndirmişdir.

Əlbəttə, görkəmli dövlət xadimi Heydər Əliyevin də xüsusi rəğbət bəslədiyi yazıçı və şairlər, ayrıca fərqləndirdiyi, üstünlük verdiyi bədii əsərlər olmuşdur. Bu məqamda dövlət xadimliyi çərçivəsində onun şəxsi ədəbi zövqü və maraqları da ifadə olunur. Böyük siyasi xadim dram əsərləri içərisində Cəlil Məmmədquluzadənin "Ölülər" tragikomediyasına, şairlərdən xalq şairi Səməd Vurğunun "Azərbaycan"ına, poema baxımından Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poemasına, milli mətbuat sarıdan "Molla Nəsrəddin" jurnalına, opera üzrə Üzeyir Hacıbəyovun "Koroğlu"suna, mənzum faciələrdən Hüseyn Cavidin "İblis" əsərinə… ayrıca önəm verdiyini və ədəbi nümunələri xüsusilə fərqləndirdiyini nəzərə çarpdırmışdır. Hətta belə məqamlarda da Heydər Əliyevin bədii ədəbiyyata münasibətdə şəxsi maraqları ilə dövlətçilik düşüncəsinin üst-üstə düşdüyü, bir-birini tamamladığı aşkar müşahidə olunur.

Bütövlükdə isə Heydər Əliyev ədəbiyyata xalqın milli-tarixi varlığının, mənəviyyatının üzvi tərkib hissəsi kimi baxmış, mənsub olduğu xalqı ədəbiyyatı ilə bir yerdə bütöv bir tamın ayrılmaz hissəsi kimi dəyərləndirmişdir. Yəni Heydər Əliyevin ədəbiyyat sevgisi Vətən və xalq sevgisinin əsas göstəricilərindən, zəruri amillərindən birini təşkil edir. Görkəmli dövlət xadimi hələ 1972-ci ildə Azərbaycan yazıçılarının beşinci qurultayındakı tarixi nitqində məsələnin bu cəhətini ön mövqeyə çəkərək demişdi: "Azərbaycan ədəbiyyatı həmişə öz xalqının həyatının ön sıralarında irəliləmişdir. Bu ədəbiyyat xalqımızın qəhrəmanlıq tarixini ədəbiləşdirib bizə çatdırmış, bizim qarşımızda bütün əzəməti ilə açmışdır".

Ədəbiyyata xalqın taleyinin və tarixi yaddaşının əks-sədası kimi baxan Heydər Əliyev bədii düşüncədə tarixilik, millilik və müasirlik prinsiplərinə xüsusi dəyər vermişdir. Millilik, tarixilik və müasirlik Heydər Əliyevin dövlətçilik təlimində ədəbiyyat siyasətinin əsasını təşkil edir. Bu prinsiplər qüdrətli dövlət xadiminin siyasi fəaliyyətinin də təməl şərtlərindəndir. Həmin prinsiplər Heydər Əliyevin dövlətçilik təlimində və ədəbiyyat siyasətində yanaşı mövcud olan amillər deyildir. Əksinə, qeyd olunan istiqamətlər Heydər Əliyev təlimində dövlətçilik fəaliyyəti ilə ədəbiyyat işinin vəhdətində, üzvi sintezində tam məna tapa bilir. Görkəmli dövlət xadimi dövlətçilik fəaliyyəti prosesində millilik amilini, tarixilik anlayışını və müasirlik prinsipini ardıcıl olaraq həyata keçirmək yollarındakı mübarizəsində ədəbiyyatda dərin iz salmış, köklü ənənələrə malik olan həmin amillərdən yerli-yerində, əsaslı şəkildə faydalanmaqla özünün ali məqsədinə nail olmağa çalışmışdır.

Bu yüksək ali qayə isə hələ sovet rejimi çərçivəsində olsa belə Azərbaycanda möhkəm milli əsaslara malik olan, davamlı tarixi ənənələri qoruyub saxlayan və müasir inkişafın önündə gedən dövlət hakimiyyətini formalaşdırmaqdan ibarət olmuşdur. Müşahidələr və təhlillər göstərir ki, sovet hakimiyyəti illərində Heydər Əliyevin bu istiqamətdə apardığı ardıcıl və düşünülmüş siyasəti özünün ilkin bəhrələrini vermişdir. Belə ki, Azərbaycan yazıçılarının, xüsusən Rəsul Rza, Bəxtiyar Vahabzadə, Xəlil Rza, Məmməd Araz, bir qədər sonra Sabir Rüstəmxanlı kimi sənətkarların ana dili uğrunda apardıqları milli mücadiləyə dövlət səviyyəsində müəyyən üsullarla meydan açılmış və bu, nəticə etibarilə xalq arasında və Mərkəzi hökumətdə Azərbaycan dilinin dövlət dili səviyyəsinə qaldırılması üçün ictimai rəyi hazırlamışdır. Cəmiyyətdə gedən həmin prosesləri zaman-zaman Mərkəzi hökumətin diqqətinə çatdırmaq və məsələyə Siyasi Büro səviyyəsində aydınlıq gətirməyi bacarmaqla Heydər Əliyev sovet hakimiyyəti illərində Azərbaycan dilinin dövlət dili kimi ölkənin Konstitusiyasına ayrıca maddə kimi daxil edilməsinə nail olmuşdu. Bununla yanaşı, milli mücadiləyə könül vermiş yazıçılar isə deputat seçilmək, fəxri adlar və dövlət mükafatları almaqla müdafiə olunmuşlar. Əslində bu yolla Heydər Əliyev həm onların fəaliyyətinə dəstək verdiyini sezdirmiş, həm də o yazıçıların toxunulmazlığına təminat vermişdir. Keçən əsrin 70-ci illərində Heydər Əliyevin Azərbaycanın bir qrup tanınmış dilçi alimlərini çoxcildlik "Müasir Azərbaycan dili" dərsliyinə görə respublikanın Dövlət mükafatı ilə təltif etməsi də elmi-ictimai və ədəbi-mədəni mühitdə ana dilinin mövqeyinin daha da möhkəmləndirilməsinə xidmət edirdi. Bununla Heydər Əliyev hələ XVI əsrdə Şah İsmayıl Xətai ilə başlanan, zaman-zaman qabarıb-çəkilən ana dili məsələsini ilk dəfə tam rəsmi olaraq dövlət səviyyəsində həyata keçirməklə tamamlamışdır.

Ölkəmiz müstəqillik qazandıqdan sonra Heydər Əliyevin dilimizin adının müəyyənləşməsi uğrunda apardığı mübarizə dövlətimizin maraqlarına, respublikamızın reallıqlarına tamamilə uyğun idi. Bu sahədə də qəti fikrə, yekun qənaətə gəlmək üçün Heydər Əliyev Azərbaycan ziyalılarının, o cümlədən ədəbiyyat xadimlərinin dəstəyindən istifadə etməyi zəruri saymışdır. Onun 21 sentyabr 1993-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasında ziyalılarla görüşü zamanı irəli sürdüyü Azərbaycan dili anlayışı geniş mənada cəmiyyətin marağına, ölkəmizdə yaşayan bütün xalqların və etnik qrupların maraqlarına uyğundur. Azərbaycan dili ideyası Azərbaycanda yaşayan bütün etnik qrupları öz ətrafında birləşdirən bir faktor kimi Azərbaycan yazıçıları tərəfindən müdafiə olunmuşdur.

Millətin və ölkənin bütövlüyü düşüncəsinin cəmiyyətdə formalaşdırılmasında da Heydər Əliyev ədəbiyyat faktorundan məqsədyönlü şəkildə faydalanmışdır. XX əsrin yetmiş-səksəninci illərində Cənub mövzusunda yazılmış əsərlərə dövlət səviyyəsində bəslənilən loyal münasibətlərin kökündə Cənubi Azərbaycanla bağlı ictimai fikri formalaşdırmaq tendensiyası dayanırdı. Nəhayət, Azərbaycan dövlətinin rəhbəri Heydər Əliyevin 12 iyun 1981-ci ildə ölkə yazıçılarının VII qurultayındakı nitqində Cənub ədəbiyyatı ilə əlaqədar söylədiyi aşağıdakı fikirlər Cənubi Azərbaycanla ədəbi-mədəni əlaqələrin yaradılmasına, dəmirdən də möhkəm olan prinsiplər əsasında formalaşdırılmış məhdudiyyətlərin aradan qaldırılmasına münasib şərait yaratmışdır: "Respublika Yazıçılar İttifaqının tərkibində Cənubi Azərbaycandan olan ədəbiyyatçılar da məhsuldar işləyirlər. Yaradıcılıq ittifaqının rəhbərliyi onlara daim diqqət yetirməli, onların əsərlərini respublikada və respublikanın hüdudlarından kənarda geniş təbliğ etməlidir. Ümumiyyətlə, Cənubi Azərbaycanla ədəbi əlaqələri möhkəmləndirmək, mədəniyyətin və mənəvi yaradıcılığın bütün sahələrində geniş əlaqələri inkişaf etdirmək, bizdə toplanmış zəngin bədii-estetik təcrübəni qələm yoldaşlarına vermək barədə düşünmək lazımdır".

O zamana qədər nəinki yazıçılar və alimlər, heç bir siyasətçi keçmiş Sovetlər İttifaqı məkanında Cənubi Azərbaycan, yaxud Cənub ədəbiyyatı haqqında rəsmi yığıncaqlarda bir kəlmə belə danışa bilməmişdi. Bu, təkcə Azərbaycanda yox, geniş mənada sovet dövlətində həmin mövzuda son altmış ildə açıq ifadə edilən ilk tezislər idi. Bu tezislərin işığında səksəninci illərdən etibarən elmi-ədəbi mühitdə Azərbaycan ədəbiyyatının bütövlüyü və Cənubda yaşayan yazıçılarla əlaqələrin yaradılması istiqamətində ilk addımlar atılmağa başlamışdır. İran İslam Respublikasında yaşayan Məhəmmədhüseyn Şəhriyar kimi qüdrətli sənətkarı Azərbaycanın dövlət səviyyəsində səslənən bu cür bəyanatlarından sonra geniş dairədə tanımağa başladılar. Xalq şairləri Süleyman

Rüstəmin və Məmməd Rahimin Məhəmmədhüseyn Şəhriyarla şerləşmələri, xalq şairləri Bəxtiyar Vahabzadə və Nəbi Xəzrinin ustad şairlə telefon danışıqları ictimai-ədəbi mühitdə ildırım kimi çaxmışdır. Yaxud əslən cənublu olan, lakin taleyin hökmü ilə Azərbaycanın şimalında yaşayıb-yaradan Balaş Azəroğlu, Mədinə Gülgün, Hökumə Bülluri, Söhrab Tahir, Əli Tudə və başqaları kimi görkəmli söz ustalarının əsərləri ilə Cənubi Azərbaycanda əsaslı tanışlıq keçən əsrin səksəninci illərindən etibarən baş verdi.

Eyni zamanda, bu dövrdən başlayaraq Cənub mövzusunda yeni əsərlər meydana qoyuldu. Azərbaycan Yazıçılar Birliyində və Nizami adına Ədəbiyyat İnstitutunda Cənubi Azərbaycan ədəbiyyatı şöbələrinin təşkili və çoxcildlik “Cənubi Azərbaycan ədəbiyyatı” antologiyalarının hazırlanıb nəşr edilməsi, ədəbi ictimaiyyətə çatdırılması görkəmli dövlət xadimi Heydər Əliyevin atdığı qətiyyətli addımların, açdığı yeni üfüqlərin sayəsində mümkün olmuşdu. Bütün bunlara görə heç tərəddüd etmədən belə demək mümkündür ki, görkəmli dövlət xadimi Heydər Əliyev hələ sovet rejimi dövründə Cənubi Azərbaycanla ədəbi-mədəni əlaqələrin yaradılmasının əsasını qoymuş, möhkəm təməlini atmışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra ölkə Prezidenti Heydər Əliyevin yeni tarixi epoxada apardığı məqsədyönlü siyasət nəticəsində daha da genişlənmiş və möhkəmlənmişdir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin “Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 90 illik yubileyinin keçirilməsi haqqında”kı 29 oktyabr 1997-ci il tarixli sərəncamı xüsusi əhəmiyyətə malikdir. Həmin dövlət sərəncamı əsasında qüdrətli sənətkarın yubileyi ilə bağlı Bakıda, Tehranda və Təbrizdə keçirilən genişmiqyaslı tədbirlərlə ədəbi-mədəni əlaqələr yeni və daha yüksək səviyyəyə qaldırılmışdır.

Heydər Əliyevin ədəbiyyat təlimindəki millilik anlayışı özündə bütün dolğunluğu ilə Azərbaycançılıq məfkurəsini əks etdirir. Və yaxud da Azərbaycançılıq Heydər Əliyevin apardığı milli siyasətin lokomotividir. Ədəbiyyat siyasəti görkəmli dövlət xadiminin bu istiqamətdə apardığı geniş siyasi-ideoloji və təşkilati işin özülünü təşkil edir. Azərbaycan ədəbiyyatı klassiklərindən Nizami Gəncəvinin, Məhəmməd Füzulinin, Cəlil Məmmədquluzadənin, Nəriman Nərimanovun, Hüseyn Cavidin, həmçinin yeni dövr bədii fikrimizin Səməd Vurğun, Rəsul Rza, Mirzə İbrahimov, İlyas Əfəndiyev, Süleyman Rüstəm, Qabil, Məmməd Araz, Mirvarid Dilbazi və başqaları kimi onlarla nümayəndələrinin dövlət səviyyəsində yubileylərinin keçirilməsi, aparılan tədqiqat-təbliğat işləri həmin sənətkarların xalqa daha yaxından tanıdılması ilə bir sırada həm də Azərbaycançılıq ideyasının geniş miqyasda yayılmasına və dərindən mənimsədilməsinə xidmət etmişdir. Dahi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibətilə Heydər Əliyevin yubileyi keçirən Təşkilat Komitəsinin 1 avqust 1994-cü il tarixli yığıncağındakı tarixi nitqində səslənən aşağıdakı mülahizələr bu həqiqəti bir daha təsdiq edir: “Bu yubileyi keçirərkən biz xalqımızın özünü tanımasını təmin edəcəyik və etməliyik. Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın. Şübhəsiz ki, bu yubileyin keçirilməsi indiki nəslin… tariximizin nə qədər zəngin olduğunu və Azərbaycan xalqının dünya mədəniyyətinə necə töhfələr verdiyini dərk etməsinə şərait yaradacaq və hər bir azərbaycanlıda, ilk növbədə, gənc nəsildə milli iftixar, vətənpərvərlik hisslərini daha da yüksəldəcəkdir. Bunun özü müstəqil Azərbaycanda bizim üçün çox gərəkli bir amildir”.

Deməli, ədəbiyyat vasitəsilə milli-mənəvi özünüdərk prinsiplərinin daha da dərinləşdirilməsi, Azərbaycançılıq məfkurəsinin mənimsədilməsi Heydər Əliyevin ədəbiyyat siyasətinin əsas prinsiplərindəndir. Heydər Əliyev bu tarixi vəzifəni həm ölkə daxilində, həm də Azərbaycandan kənarda həyata keçirmişdir. Böyük ədəbiyyat Heydər Əliyevin Azərbaycanı dünyada tanıtdırması baxımından da mühüm vasitələrdən birinə çevrilmişdir. Nizami Gəncəvi, Məhəmməd Füzuli kimi qüdrətli sənətkarların yubileylərinin, “Kitabi-Dədə Qorqud” dastanlarının yaranmasının 1300 illiyinin beynəlxalq miqyasda keçirilməsi görkəmli dövlət xadiminin Azərbaycan xalqını və ölkəsini dünya səviyyəsində tanıtmasına, dövlətimizə və xalqımıza etibarlı tərəfdaşlar qazandırmasına doğru istiqamətləndirilmiş və müsbət nəticələrin əldə edilməsinə səbəb olmuşdur. Bundan başqa, müxtəlif bəhanələrlə Azərbaycan xalqına mənsub olmasına şübhə ilə yanaşılan, ətrafında yersiz və haqsız mübahisələr açılan ədəbiyyat xadimlərinin yubileylərinin keçirilməsi həm də həmin şübhəli mülahizələrin, məqamların, iddiaların aradan qaldırılmasına, Azərbaycan gerçəkliyinin daha dərindən əsaslandırılıb təsdiq olunmasına hesablanmışdır. Nizami Gəncəvinin 840 illik, Məhəmməd Füzulinin 500 illik, “Kitabi-Dədə Qorqud” dastanlarının 1300 illik yubileyləri prosesində aparılan məqsədyönlü elmi-ideoloji işin sayəsində ortaq cəhətləri ilə yanaşı bu sənətkarların və abidələrin Azərbaycan xalqına məxsusluğu nəinki möhkəm surətdə əsaslandırılmış, hətta bütün dünyaya bəyan edilmişdir. Bunlar isə Heydər Əliyevin ədəbiyyat siyasətində həm də Azərbaycanın mənafelərinin qorunması, müdafiə edilməsi kimi məsələlərin də əhatə olunduğunu nəzərə çarpdırır.

Ümummilli lider Heydər Əliyevin ədəbiyyat siyasətində tarixilik prinsipinin də özünəməxsus yeri vardır. Əslində bu amili tarixi dərk prinsipi də adlandırmaq olar. Böyük dövlət xadimi Heydər Əliyev bu fikirdə idi ki, “Azərbaycanın qədim tarixini, əsrlər boyu keçdiyi yolu gərək həm öz vətəndaşlarımıza, həm də…

respublikamıza maraq göstərən adamlara tanıtmaq lazımdır". Heydər Əliyev Azərbaycan xalqına özünün soykökünü, milli-tarixi keçmişini dərindən və əsaslı şəkildə dərk etdirmək, mənimsətmək, xalqımızda milli qürur hisslərini daha da yüksəltmək üçün tarixi mövzularda bədii əsərlərin yazılmasına meydan verilməsini zəruri saymışdır. Görkəmli Azərbaycan yazıçıları Elçinin, İsa Hüseynovun, Əzizə Cəfərzadənin, Hüseyn İbrahimovun, Fərman Kərimzadənin, Əlisa Nicatın və başqalarının tarixi mövzularda yazdıqları bədii əsərlər milli-tarixi özünüdərk proseslərinin dərinləşməsində əhəmiyyətli rol oynamışdır. Tarixi mövzularda yazılmış bədii əsərlərin əsasında filmlərin çəkilməsi, teatr tamaşalarının hazırlanması, bu əsərlərdən bəzilərinin rus dilinə tərcümə olunması, Türkiyədə nəşri prosesinin kütləviləşdirilməsinə və miqyasın genişlənməsinə özünün layiqli töhfəsini vermişdir.

Heydər Əliyevə görə, tarixi mövzuda yüksək bədii səviyyədə əsər yazmaq yazıçıların Vətən və xalq qarşısındakı ən məsul vəzifələrindəndir. Belə əsərlərdə tarixiliklə bədiiliyin vəhdət daşımalı olduğunu da görkəmli dövlət xadimi diqqət mərkəzinə çəkmişdir: "Tarixi simaların obrazları yaradılan və tariximizin çox mühüm dövrləri tərənnüm olunan ədəbi əsərlər ən yüksək səviyyədə yazılmalıdır. Bunlar çox mühüm, açıq deyək ki, mürəkkəb mövzulardır. Belə mövzuların öhdəsindən yalnız yüksək istedadlı, dərin bilikli sənətkarlar gələ bilərlər".

Siyasi istiqaməti ilə yanaşı, elmi cəhətdən də əhəmiyyətli olan yuxarıdakı mülahizələr tarixiliklə bədiiliyin sintezinə dair Heydər Əliyev tezisləri kimi səslənir. Bu cür aydın və konkret tələblər tarixi mövzuların meydanını genişləndirmiş, həmin mövzuda layiqli bədii əsərlərin yazılması ilə nəticələnmişdir. Bu isə öz növbəsində milli-tarixi dərk proseslərinin dərinləşdirilməsinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

Heydər Əliyevin ədəbiyyat siyasətində müasirlik meyarının özünəməxsus rolu və yeri vardır. Böyük siyasətçinin nəzərində müasirlik geniş miqyaslı bir kateqoriya kimi həm çağdaş həyatın ədəbiyyatda əks etdirilməsi, həm də müasir düşüncənin, yeni təfəkkürün ədəbiyyata gətirilməsi vəzifələrini əhatə edir. Ona görə də Heydər Əliyev həmişə "öz dövrünü tam dolğunluğu ilə göstərməyin, ictimai inkişafın dialektikasını bədii formada canlandırmağın, onun ən mühüm meyillərini və qanunauyğunluqlarını açmağın necə məsul vəzifə olduğunu hər bir sənətkarın dərk etməsi çox böyük vəzifədir" qənaətində olmuşdur. Onun fikrincə, müasir həyatdan söz açan əsl sənətkar ötəri, keçəri meyilləri deyil, "ictimai inkişafın müqəddəratını müəyyən edən prosesləri və hadisələri ilk növbədə təsvir etməlidir".

Həm keçmiş sovet hakimiyyəti illərində, həm də müstəqillik dövründə görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan yazıçılarının qurultaylarındakı dərin məzmunlu məruzələri, müasir ədəbiyyatın, yaxud da ki, ədəbiyyatda müasirlik məsələsinin bədii əksinin proqramına çevrilmişdir. Onun müasiri olduğu sənətkarların yubiley mərasimlərindəki çıxışları müasir həyat və çağdaş ədəbiyyat münasibətlərinin əsas ana xətləri ilə açılmasına aydınlıq gətirmişdir. Beləliklə, cəmiyyətdə və ədəbiyyatda müasirlik anlayışının Heydər Əliyev konsepsiyası formalaşmışdır. Fikrimizcə, XX əsrin altmışıncı illərindən sonra yaranan müasir Azərbaycan ədəbiyyatı ən yaxşı nailiyyətlərini həmin müdrik konsepsiyanın işığında qazana bilmişdir.

Heydər Əliyevin ədəbiyyat təlimi sözün həqiqi mənasında əsl professionallığa əsaslanır. Görkəmli dövlət xadiminin ayrı-ayrı sənətkarlar, konkret bədii əsərlər, teatr tamaşaları haqqındakı baxışları və mülahizələri ədəbiyyatşünaslıq və sənətşünaslıq elmlərinin ən yüksək tələbləri və prinsiplərindən ucada dayanır. O, yazıçılara və əsərlərə qiymət verərkən ədəbiyyatşünaslığın, yəni elmin tələblərindən deyil, ədəbiyyatdan və həyatdan çıxış etmişdir. Heydər Əliyevin ədəbiyyat təlimi ədəbiyyatşünaslıq və sənətşünaslıq, tarix və dilşünaslıq… elmlərini də zənginləşdirmiş və inkişaf etdirmişdir. Azərbaycanda professional milli dövlətçilik siyasətinin banisi olan Heydər Əliyev ədəbiyyat haqqında elmdə də professionallıq siyasətinin böyük müdafiəçisidir. Bədii ədəbiyyatla bir sırada ədəbiyyatşünaslıq, sənətşünaslıq, dilşünaslıq kimi elmlər də Heydər Əliyevin ədəbiyyat siyasətinin zəminində yeni inkişaf səviyyəsinə yüksələ bilmişdir.

Yazıçılar Birliyinin mətbu orqanları olan "Ədəbiyyat qəzeti"nin, "Azərbaycan", "Qobustan" və "Ulduz" jurnallarının nəşrinin dövlət tərəfindən maliyyələşdirilməsi də Heydər Əliyevin çətin keçid dövrü proseslərində milli ədəbiyyatın inkişafına göstərdiyi böyük qayğının əməli təzahürüdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycançılıq siyasətinin ideoloji özülü görkəmli dövlət xadimi Heydər Əliyevin ədəbiyyat və mədəniyyət təlimindən yoğrulmuşdur. Prezident İlham Əliyev bu əbədiyaşar təlimi yeni epoxanın prinsiplərinə uyğun olaraq əlavə müddəalarla daha da zənginləşdirərək müasir dövrün ədəbiyyat siyasətini müəyyən etmişdir.

Yeni tarixi epoxada ilk növbədə görkəmli dövlət xadimi Heydər Əliyevin ədəbiyyat siyasətində formalaşmış ənənələri davam etdirilmişdir. Ölkəmizdə hazırkı şəraitdə adlı-sanlı sənətkarların dövlət səviyyəsində yubileylərinin keçirilməsi, onların əsərlərinin latın qrafikası ilə sanballı yubiley nəşrlərinin hazırlanaraq geniş oxucu auditoriyasına təqdim edilməsi bədii yaradıcılıq fəaliyyətinin daha da inkişaf etdirilməsinə təkan verir. Həmçinin böyük xidmətləri nəzərə alınmaqla tanınmış yazıçılara fəxri adların, fərdi

təqaüdlərin və yaradıcı gəncliyin istedadlı nümayəndələrinə mükafatların verilməsi də ulu öndər tərəfindən əsası qoyulmuş ədəbi prosesin stimullaşdırılması siyasətinin konkret əməli işlərlə davamından ibarətdir. Bundan başqa, uzun illik fasilədən sonra Azərbaycan Respublikası Dövlət mükafatlarının yenidən bərpa edilməsi də ədəbiyyat siyasəti sahəsindəki varisliyin əməli ifadəsidir. Bütün bunlarla bərabər, cəmiyyətin inkişaf xüsusiyyətlərinə, ölkəmizin artan iqtisadi imkanlarına uyğun olaraq, ədəbiyyat siyasəti sahəsində bir sıra yeni tədbirlərin həyata keçirilməsi də müşahidə olunmaqdadır. Ədəbiyyat və incəsənət sahəsində Heydər Əliyev Mükafatının müəyyən edilməsi və həyata keçirilməsi, hər şeydən əvvəl, Azərbaycan dövlətinin ədəbiyyat siyasətini müəyyən edən görkəmli dövlət xadiminin xatirəsinə böyük ehtiramın ifadəsidir. Heydər Əliyev Mükafatlarının təsis olunması həm də ədəbiyyat və incəsənətin ulu öndərin ümummilli ideallarına layiq şəkildə inkişaf etdirilməsi ənənəsinin yaşadılması deməkdir. Eyni zamanda son vaxtlarda “Qızıl çinar”, “Buta” kimi yüksək səviyyəli mükafatların meydana çıxması, Heydər Əliyev Fondunun mükafatları və təqaüdlərinin yaradılması mövcud siyasətin işığında formalaşan yeni ənənələrdir.

Son illərdə ölkədə aparılan böyük quruculuq proseslərinin tərkib hissəsi kimi Azərbaycan Yazıçılar Birliyinin, Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin, Azərbaycan Dövlət Milli Dram Teatrının, Opera Teatrının, C. Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının və digər teatrların, habelə Naxçıvan Yazıçılar Birliyinin binalarının əsaslı şəkildə yenidən qurulması, yeni texnologiya və müasir avadanlıqlarla təchiz edilməsi, Muğam Mərkəzinin yaradılması, Cəlil Məmmədquluzadə adına Naxçıvan MR Ədəbiyyat Muzeyi və böyük ədibin Nehrəm kəndindəki ev-muzeyi və Kəngərli rayonunda Şahtaxtinskilər Muzeyi üçün yeni binaların tikilib istifadəyə verilməsi bədii ədəbiyyatın, söz sənətinin inkişafında mühüm rol oynayır. Bütün bunlar ölkəmizin Prezidenti İlham Əliyevin ədəbiyyat və mədəniyyət işinin müstəqillik dövrünün yüksək tələblərinə uyğun şəkildə inkişaf etdirilməsi tədbirlərini yeni səviyyəyə qaldırdığını qabarıq şəkildə nümayiş etdirir. Beləliklə, möhtərəm Prezidentimiz İlham Əliyev yeni tarixi epoxanın ədəbiyyat siyasətini formalaşdırır və ardıcıl olaraq inkişaf etdirir. Müstəqil Azərbaycanda uğurla həyata keçirilən ədəbiyyat siyasəti yeni ədəbiyyat axtarışlarının və çağdaş ədəbi nəslin meydana çıxması, ərsəyə gəlməsi ilə nəticələnir. Müasir dövrün ədəbiyyat siyasəti Azərbaycançılıq məfkurəsinin daha da zənginləşdirilməsinə xidmət edir.

**Göründüyü kimi, yeni dövr Azərbaycan ədəbiyyatının son yarım əsrdəki inkişafında Heydər Əliyevin ədəbiyyat siyasətinin böyük rolu və təsiri olmuşdur. Əslində Azərbaycanın son qırx ildəki ədəbiyyatı Heydər Əliyev epoxasının ədəbiyyatıdır. Ən yeni dövr Azərbaycan ədəbiyyatının bir məsul vəzifəsi də yeni tarixi epoxanın fonunda görkəmli dövlət xadimi Heydər Əliyevin mükəmməl, hərtərəfli şəkildə işlənmiş, ciddi ədəbi-tarixi meyarlara cavab verən bədii obrazını yaratmaqdan ibarətdir.**

“**Azərbaycan**“.- 2010.- 27 aprel.-N 89- S.4.

# XALQI DÖVLƏTÇİLİK İDEALLARINA QOVUŞDURMUŞ RƏHBƏR

**Hikmət MİRZƏYEV,**
Azərbaycan Respublikası Ali Məhkəməsinin İqtisadi
Mübahisələrə dair İşlər üzrə Məhkəmə Kollegiyasının sədri

**Böyük mütəfəkkirlərdən olmuş Mark Avreli yazırdı ki, hər bir xalqın gerçək potensialı yalnız fenomenal liderlik keyfiyyətlərini öz parlaq şəxsiyyətində yaşadan insanların dövlətçilik fəaliyyətində açıla bilər. Bugünün özündə də dünyanın bir çox nüfuzlu dövlətləri məhz fenomen liderlərinin müəyyənləşdirdiyi yolla irəliləyir, davamlı və sabit inkişafı bu uğur magistralından kənarda təsəvvür etmirlər. Azərbaycan xalqı tarixən arzularında yaşatdığı güclü, müdrik və ədalətli rəhbər idealını ötən əsrin ortalarında – ümummilli lider Heydər Əliyevin parlaq şəxsiyyətində tapmışdır.**

1969-cu ilin iyulunda Azərbaycanda hakimiyyətə Heydər Əliyev kimi gənc və enerjili, xalqına, dövlətinə bağlı bir şəxsiyyətin gəlməsi xalqın həyatında mənəvi yüksəlişin başlanğıcına çevrildi. Ulu öndər çevik təşkilatçı, zamanın nəbzini tuta bilən uzaqgörən rəhbər kimi sübut etdi ki, istək, iradə, vətənpərvərlik və milli təəssübkeşlik hissi olan zaman az müddətdə çox uğura imza atmaq olar. Və elə bu daxili əminliklə də Heydər Əliyev problemlər məngənəsində çapalayan Azərbaycan xalqının özünəinamını bərpa edərək milli ruhu məhv olmaq təhlükəsindən qorudu, dövlət idarəçiliyinə yeni ruh, müasirlik gətirdi, xalqın bütün potensialını milli problemlərin həlli yönündə səfərbər etdi. Hətta imperiya asılılığında belə millətə vicdanlı, sədaqətli, ləyaqətli xidmətin mümkünlüyünü əməli fəaliyyəti ilə sübuta yetirdi.

Böyük strateqin qətiyyəti, təşəbbüskarlığı, yeniliklərə, islahatlara meyilli olması Azərbaycan vətəndaşlarında gələcəyə inam hissini gücləndirdi. Ulu öndər Heydər Əliyevin qarşısında duran vəzifələr miqyasca daha böyük, xeyli dərəcədə məsuliyyətli idi. Xalqına ruhən bağlı olan ulu öndər millətin öz milli kimliyindən uzaqlaşdırılması prosesinin qarşısını almalı, vətəndaşlarda tarixi keçmişi, dini, dili, mədəniyyəti ilə bağlı yetkin fikir formalaşdırmalı idi. Heydər Əliyevin qarşısında həm də iqtisadi cəhətdən geridə qalmış bir respublikanın sosial-iqtisadi yüksəlişinə yönəlmiş səmərəli islahatlar həyata keçirmək, qanunçuluğu, hüquq qaydalarını bərpa etmək kimi taleyüklü vəzifələr dururdu. Böyük strateq nəinki həllini gözləyən bu və digər problemlərin öhdəsindən uğurla gəldi, hətta ölkənin müstəqil, təminatlı gələcəyinə etibarlı zəmin formalaşdıra bildi.

Ötən əsrin nüfuzlu dövlət xadimlərindən olmuş Uinston Çörçill deyirdi ki, “siyasətçi növbəti seçkilər, əsl lider isə gələcək nəsillər barədə düşünür”. Ümummilli lider Heydər Əliyev respublikaya rəhbərliyinin birinci dövründə həyat amalının xalqa layiqli xidmətdən ibarət olduğunu əməli fəaliyyəti ilə nümayiş etdirməklə yanaşı, gələcək müstəqilliyə etibarlı zəmin formalaşdırdı. İrimiqyaslı tikinti-quruculuq, abadlıq işlərinə başlamaqla Azərbaycan həyatında intibah mərhələsinin əsasını qoydu. Respublikanın gələcəyini, müstəqilliyini düşünərək SSRİ rəhbərliyi qarşısında təkidli tələblər irəli sürdü, strateji əhəmiyyətli bir sıra sənaye və istehsal müəssisələrinin Azərbaycanda inşasına nail oldu. Həyata keçirdiyi səmərəli islahatlarla çox qısa zamanda – 70-ci illərin ortalarında Azərbaycanın iqtisadi inkişaf göstəricilərinə görə keçmiş İttifaq miqyasında ilk yerlərdən birini tutmasını təmin etdi.

Ulu öndər Heydər Əliyev bütün varlığı ilə haqqın və ədalətin carçısı, düzgünlüyün tərəfdarı idi. Dürüstlük, insanların haqqını müdafiə etmək, humanizm kimi ali insani keyfiyyətlər onun müdrik rəhbər obrazının qabarıq görünən cizgiləri idi. 70-ci illərdə məhz Heydər Əliyevin sayəsində ali təhsil müəssisələrində bilik yeganə meyara çevrilmiş, bir sıra ixtisaslara, o cümlədən Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə qəbul zamanı yol verilən ayrı-seçkiliyin qarşısı alınmış, sıravi vətəndaşların övladlarının nüfuzlu ixtisaslara doğru yolunu bağlayan sədlər aradan qaldırılmışdı. Eyni zamanda, ulu öndərin uzaqgörənliyinin nəticəsi olaraq on minlərlə azərbaycanlı gənc Rusiyanın nüfuzlu ali məktəblərində təhsil almaq, ixtisaslı kadr kimi yetişmək imkanı qazanmışdı.

Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi illərində də özünün idarəçilik prinsiplərinə sadiq qaldı. Fəaliyyətini bütünlüklə millətə, xalqa, dövlətə xidmət amalı üzərində quraraq milli xilaskar və qurucu rəhbər kimi ümummilli liderlik zirvəsinə yüksəldi. Müstəqilliyin ilk illərində milli dövlətçiliyi qorumaq üçün nümayiş etdirdiyi qətiyyət və prinsipiallıq onun yüksək liderlik əzmini bir daha nümayiş etdirirdi. Ulu öndər 1993-cü ilin iyununda çətinliklərə, maneələrə, dövlət çevrilişi cəhdlərinə mətinliklə sinə gərərək, xalqı vətəndaş qarşıdurmasından, müstəqilliyi itirmək təhlükəsindən qurtardı, çağdaş tariximizə dövlətçiliyin xilaskarı, qurucusu kimi daxil oldu. Ulu öndər malik olduğu yüksək dövlətçilik və idarəçilik səriştəsi ilə çiyinlərini son dərəcə ağır bir yükün altına verdi, məsuliyyətdən çəkinmədi.

Siyasi liderin gücü və qüdrəti onun elan etdiyi məqsəd və vəzifələrin, ideoloji prinsiplərin cəlbediciliyi ilə deyil, ilk növbədə qarşıya qoyduğu vəzifələri real həyatda tətbiq imkanları ilə ölçülür. Bu mənada əminliklə demək olar ki, Azərbaycan xalqının milli kimliyinin və özünəməxsusluğunun bariz təcəssümünə çevrilmiş mütərəqqi ənənələrin təkmil ideoloji konsepsiya halına gətirilməsi və konkret dövlət modelində reallaşdırılması məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu siyasi kurs bütün istiqamətlərdə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi prinsipinə söykənir. Hüquqi dövlət quruculuğu, ölkənin iqtisadi və sosial inkişafı, Azərbaycanda mülki cəmiyyətin qurulması, milli təhlükəsizlik və xarici siyasət problemlərinin həlli, milli-mənəvi inkişaf istiqamətində görülən işlər bütünlüklə müstəqillik amilinin praktiki baxımdan bərqərar olmasına yönəlib.

Ümummilli liderin dövlətçilik fəlsəfəsinin qayəsini təşkil edən mühüm məqamlardan biri də qanunun aliliyinin idarəetmə sisteminin əsas prinsiplərindən biri kimi təsbit edilməsi idi. Heydər Əliyev müdrik rəhbər olaraq hər bir fərdin azad, təhlükəsiz şəraitdə yaşaması naminə, ilk növbədə, respublikada qanunçuluğun və hüquq qaydalarının bərpasına nail oldu. Paralel olaraq Azərbaycanda qanunçuluğun inkişafına baza yaradan addımların atılması isə yeni, müasir və möhkəm dövlətçilik modelinin təkmil hüquqi mexanizmlərinin formalaşdırılması məqsədindən irəli gəlirdi. Azərbaycan müstəqil dövlətə çevrilmişdir və mükəmməl hüquqi bazaya söykənən idarəetmə sisteminin formalaşdırılması zəruri idi. Bu baxımdan 1993-cü ildən sonra Azərbaycanda aparılmış hüquqi islahatlar respublikada sabitliyin və inkişafın təməl prinsiplərinin müəyyənləşdirilməsini, ölkədə qanunçuluğun doğma kimi qəbul olunmasını təmin etdi.

1995-ci ilin 12 noyabrında Konstitusiyanın qəbulundan sonrakı mərhələdə Heydər Əliyevin iradəsi ilə qəbul olunan saysız-hesabsız törəmə qanunların da kökündə məhz insan şəxsiyyətinə hörmət amili dayanırdı. Respublikada əfvetmə institutunun bərpası, ölüm cəzası üzərində moratoriumun qoyulması, 1998-ci ildə bu cəzanın birdəfəlik ləğvi, insan hüquqları üzrə müvəkkil institutunun (ombudsman) yaradılması, hüquq-mühafizə, ədliyyə orqanlarında dövrün tələblərinə cavab verən mütərəqqi islahatların aparılması, məhkəmələrin müstəqilliyinin təmin edilməsi, hakim vəzifəsinə test üsulu ilə seçkilərin keçirilməsi – bütün bunlar məhz Heydər Əliyevin qətiyyətli addımları sayəsində gerçəkliyə çevrildi.

Tarixi təcrübə göstərir ki, siyasi liderin məharəti eyni zamanda ictimai inkişafın mövcud mərhələlərinə uyğun olaraq insanların idarəçilikdə iştirakı formalarını müəyyənləşdirmək bacarığında müəyyən olunur. Bu mənada siyasi liderliyin ən əhəmiyyətli cəhətlərindən biri də idarəetmə aparatına səriştəli, xalqına vicdanla xidmət edən, savadı ilə fərqlənən kadrların cəlb olunmasıdır. Bu mənada, Heydər Əliyevin layiqli siyasi varis kimi cəmiyyətə təqdim etdiyi cənab İlham Əliyev dövlət başçısı kimi səlahiyyətlərinin icrasına başladığı ilk gündən ulu öndərin milli dövlətçilik kursunu inamla davam etdirir. Dövlət başçısı müasir qloballaşma dövrünün yeni geosiyasi reallıqlarından irəli gələn mənzərənin əsas cizgilərinə cavab verən siyasət yürüdür və bu siyasətin əsasında insan hüquqları məsələsi prioritet mahiyyət kəsb edir.

Ölkə Prezidenti İlham Əliyev son 7 ildə yürütdüyü siyasətlə Azərbaycan xalqının demokratikləşməyə tam hazır olduğunu, insan hüquqlarına böyük önəm verdiyini Avropaya və bütün dünyaya sübuta yetirdi. Ötən illərdə ədliyyə və məhkəmə orqanlarında aparılan islahatlar tam mahiyyəti ilə ölkədə qanunçuluğun, demokratik norma və prinsiplərin yüksək səviyyəli təminatına xidmət edir. Dövlət başçısı keyfiyyətcə yeni mərhələdə ədalət mühakiməsinin səmərəliliyini artırmağa, tam obyektivliyini təmin etməyə çalışır və bu istiqamətdə bütün zəruri tədbirləri həyata keçirir.

Ədalət və humanizm, qanunçuluq həqiqətən də hər bir cəmiyyətin inkişafının başlıca şərti, əsas qayəsidir. Ulu öndər Heydər Əliyev hələ 1981-ci ildə "Literaturnaya qazeta"ya verdiyi məşhur müsahibədə "Qoy ədalət zəfər çalsın!" deyə cəmiyyəti yüksək demokratizm, humanizm ruhunda kökləməyə çalışırdı. Ədalət meyarı Heydər Əliyev ideyalarına tapınan cənab İlham Əliyev üçün də daim prioritet məsələdir. Dövlət başçısının son 7 ildə yeritdiyi siyasət də bütün çalarları ilə məhz insan və şəxsiyyət amilinin yüksəlişinə hesablanıb.

"**Azərbaycan**".-2010.-28 aprel.-N 90.-S.3.

# XALQA LAYİQLİ LİDERLİK MİSSİYASI

**Səttar MEHBALIYEV,**
Azərbaycan Həmkarlar İttifaqları
Konfederasiyasının sədri,

**Əhalinin sosial rifahının yaxşılaşdırılması ümummilli lider Heydər Əliyev siyasi kursunun prioritet istiqamətlərindəndir**

**Əsrlər boyu liderlik institutu siyasətşünas və filosofların əsas müzakirə mövzularından olmuş, bu fenomeni dərindən öyrənməyə çalışmış böyük mütəfəkkirlər bir-birindən maraqlı, dəyərli nəzəriyyələr yaratmışlar. Geniş fikir müxtəlifliyinə baxmayaraq, ümumi qənaət bundan ibarətdir ki, iqtisadi potensialından asılı olmayaraq, hər bir dövlətin hərtərəfli inkişafı milli lider amili ilə bilavasitə bağlıdır. Tarixən liderlik missiyasını yalnız yüksək nüfuzu, ictimai-siyasi fəallığı, təşəbbüskarlığı, enerjisi ilə fərqlənən, fitri idarəçilik keyfiyyətlərinə malik olan seçilmiş insanlar əzmlə yerinə yetirə, təmsil etdikləri xalqın tarixinə öz möhürlərini vura bilərlər.**

Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli siyasətçi Heydər Əliyev də böyük siyasətdə qarşıya qoyduğu hədəflərə doğru irəliləyərkən təkcə daxili inamına, iti fəhminə, yüksək intellektinə, parlaq zəkasına deyil, həm də ictimai etimada əsaslanmış, ən böyük dəstəyi xalqdan almışdır. Şəxsiyyət və lider kimi miqyasının böyüklüyü ona hələ sağlığında ümummilli liderlik zirvəsini fəth etmək imkanı yaratmışdı. Məhz bu qeyri-adi xüsusiyyəti sayəsində ulu öndər həm də idarəçilikdə böyük uğurlara imza atmış, cəmiyyətin həlledici hissəsini arxasınca apara bilmişdir. Heydər Əliyev dühası, özünəməxsus liderlik keyfiyyətləri, siyasi prosesləri yönəltmək məharəti, cəmiyyətin maraq və mənafelərini ümumi nöqtədə birləşdirmək bacarığı ilə dövlətə rəhbərlik fəaliyyətinin bütün mərhələlərində xalqın sonsuz rəğbət və etimadını, inamını qazanmışdır.

Böyük siyasi liderlər üçün səciyyəvi cəhətlərdən biri də siyasi intuisiya və uzaqgörənlik, hadisələrin gedişinə təsir göstərmək və ya onu qabaqlamaq bacarığıdır. Tarixən bir çox nüfuzlu liderlərin siyasətdə qarşıya qoyduğu məqsədlərə yetişərək uğur qazanması, rəhbərlik etdiyi kütləni, xalqı böyük fəlakət və faciələrdən qoruması da məhz onların iti fəhminin, intuisiya və uzaqgörənliyi sayəsində mümkün olmuşdur. Azərbaycan xalqının ümummilli lideri də çağdaş tariximizdə məhz uzaqgörən, siyasi proseslərin inkişaf trayektoriyasını duyan, çoxgedişli kombinasiyalar qurmağı bacaran, hadisələrə pozitiv təsir göstərən fenomenal şəxsiyyət kimi xatırlanır.

Ulu öndər Heydər Əliyevin hələ sağlığında xarizmatik liderə çevrilməsində həyatı üçün heç bir riskdən çəkinməməsi, sözünü məqamında deməyi bacarması, milli ideallar uğrunda mübarizədə yüksək qətiyyət göstərməsi kimi xarakterik xüsusiyyətləri mühüm rol oynamışdır. Ulu öndər harada olursa-olsun, hadisələrin fövqünə qalxmış, idarəçilik qabiliyyətini reallaşdırmış, fenomen lider imicini qorumuşdur. Liderlik onun xarakterindən, fitrətindən, dünyagörüşündən, yaradıcılıq enerjisindən, qurub-yaratmaq həvəsindən mayalanmışdır. Görkəmli ABŞ politoloqu Zbiqnev Bjezinski ulu öndər Heydər Əliyev haqqında xatirələrində bu barədə belə demişdir: "…Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət – bir sözlə, şəksiz liderdir".

Siyasi lideri səciyyələndirən əxlaqi keyfiyyətlərin idarəetmə üçün zəruriliyini – Platon, Aristotel, Konfutsi kimi filosoflar da nəzəriyyələrində xüsusi önə çəkmişlər. Bütün bunların fonunda ulu öndər Heydər Əliyevin mənəvi-əxlaqi cəhətdən nə qədər zəngin və kamil insan olduğu bir daha aydın görünür. Ümummilli lider istər ailədə, istərsə də dövlət idarəçiliyində və cəmiyyətdə daim milli-mənəvi, əxlaqi dəyərlərə sadiq qalmış, əsl azərbaycanlı-türk dünyagörüşünə malik olmuşdur. Böyük strateq siyasətdə mənəvi əxlaq – sadəlik, düzgünlük, təmizlik, vicdanlılıq, ləyaqətlilik, yurdsevərlik, məğrurluq, mərdlik, qorxmazlıq kimi keyfiyyətləri daim uca tutmuş, irəli çəkdiyi, etimad göstərdiyi kadrların da bu məziyyətlərə malik olmasına ciddi fikir vermişdir. Ulu öndər prinsipial, sərt, məsuliyyətli olduğu qədər də, humanist, tolerant, haqqa, ədalətə böyük önəm verən, mərhəmətli, nəcib və xeyirxah şəxsiyyət kimi milyonlarla azərbaycanlının qəlbində yaşayır, ehtiramla anılır.

Dövlət idarəçiliyində, ümumilikdə, siyasi arenada uğuru təmin edən cəhətlər sırasında novatorluq və praqmatizm xüsusi yer tutur. Xaraktercə yenilikçi, təşəbbüskar liderlər həm də praqmatik keyfiyyətləri özlərində daşıyırlar. Ümummilli lider xalqın milli xüsusiyyətlərinin, özünəməxsusluğunun saxlanılması və gələcək nəsillərə çatdırılması məsələsində nə qədər mühafizəkar idisə, elmi-texniki tərəqqiyə, inkişafa, sosial-mədəni tərəqqiyə xidmət edən proqram və konsepsiyaların həyata keçirilməsində, informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqində bir o qədər yenilikçi, islahatçı, novator olmuşdur. Yenilikçilik, təşəbbüskarlıq keyfiyyətləri ilk növbədə onun qurucu və yaradıcı, eyni zamanda maarifçi insan olmasından irəli

gəlmişdir. Heydər Əliyev yüksək siyasi fəhmi və uzaqgörənliyi onun reallığa adekvat qərar və proqramlar qəbul etməklə davamlı inkişaf üçün dayanıqlı əsaslar yaratmaq, qonşu dövlətlərlə münasibətləri qarşılıqlı faydalılıq prinsipi əsasında qurmaq, gələcək naminə optimal qərarlar qəbul etmək məharətində təsdiqini tapmışdır. Məşhur Çin filosofu Konfutsinin fikridir – hər kəsin taleyini onun xarakteri müəyyən edir. Nəhəng əməlləri ilə xalqının tarixini yazmış böyük liderlərin ömür yoluna nəzər salarkən məlum olur ki, onların rəhbərlik üçün səciyyəvi olan bir çox keyfiyyətləri sonradan qazanılmış deyil, təbii başlanğıcla anadangəlmə olur. Ulu öndər Heydər Əliyevin də hələ gənc yaşlarından qarşıya qoyduğu amallar uğrunda apardığı mübarizə, məqsədinə doğru inamla irəliləməsi, prinsipiallığı və qətiyyəti, özünəinamı onun sosial-psixoloji tipinə görə liderlik xüsusiyyətlərini aşkara çıxarmışdır. Gənc yaşlarından həyatının təhlükəsizlik orqanları ilə bağlanması da onun xarakter etibarilə nə qədər möhkəm, mətin və cəsarətli bir şəxsiyyət olduğunu təsdiqləyir. Şübhəsiz, şəxsiyyətə pərəstiş dövründə dövlət təhlükəsizliyi orqanlarında çalışanların özlərinin həyatı da ciddi risk və təpki altında olmuşdur. Buna baxmayaraq, Heydər Əliyev nəinki bu riskdən çəkinməmiş, hətta reallığın imkan verdiyindən də yüksək dərəcədə xalqının mənafeyi naminə çalışmış, milli ruhlu, vətənpərvər insanları keçmiş rejimin repressiyalarından qorumuşdur.

Ötən əsrin sonlarına doğru Heydər Əliyev fenomeninin siyasi iradəsi, düşüncəsinin dinamizmi, dünyada gedən prosesləri anlamaq, təhlil edib modelləşdirmək və siyasi davranışın ən əlverişli sxemlərini reallaşdırmaq qabiliyyəti Azərbaycanı xaos və anarxiya mühitindən, vətəndaş müharibəsi təhlükəsindən xilas edərək sabit inkişaf yoluna çıxarmışdır. İctimai-siyasi sabitliyi tam təmin edərək sonrakı mərhələdə həyata keçirdiyi çoxşaxəli islahatlarla bir daha sübuta yetirmişdir ki, güclü iqtisadiyyata, müstəqil xarici siyasətə, demokratik imicə, mənəvi yüksəlişə malik olmayan xalq güclü dövlət qura bilməz. Böyük strateq iqtisadi və hüquqi islahatların paralelliyini təmin etməklə məhz o prinsipə əsaslanmışdır ki, hüquqi dövlət insanların birgə fəaliyyətinin təşkili və tənzimlənməsinin mühüm amili, onların qarşılıqlı münasibətlərinin qaydaya salınmasının, cəmiyyətdə nizam-intizamın və sabitliyin təmini vasitəsidir. "Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi, dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir" – deyən ümummilli lider demokratik inkişafa məhz insanların daxili azadlığını, mənəvi ucalığını, qanunçuluğa riayət etməsini şərtləndirən mühüm vasitə kimi yanaşmışdır.

Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu müddətdə Azərbaycan cəmiyyətinin vahidliyinin, bütövlüyünün təmin olunmasını da özünün strateji vəzifəsi saymışdır. Cəmiyyətin vahidliyini təmin edərək, onun müxtəlif istiqamətlər – sosial bərabərsizlik, regional faktor, dini və milli mənsubiyyət amili baxımından parçalanmasına imkan verməmişdir. Həmin seçimin Azərbaycan dövlətçiliyinin yaşaması, inkişaf etməsi baxımından düzgün olduğunu ötən illərin reallıqları da bir daha təsdiqləmişdir. Heydər Əliyev dühası bütün sistem və ölçülərin, ictimailəşmiş qəliblərin fövqündə dayansa da, bu ucalıq onun böyük dövlət xadimi, görkəmli ictimai-siyasi xadim və bunlardan da əvvəl – Böyük Azərbaycanlı olması faktını qətiyyən kölgədə saxlamır. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam" – deyən ümummilli lider azərbaycanlılara xas gözəl nə varsa, onların hamısını öz parlaq simasında bir araya gətirmişdir. Azərbaycanı qarış-qarış gəzərək, rəhbər kimi onun hər bölgəsinə silinməz izlər salmış, sağlığında xalq üçün gördüyü nəhəng işlərlə özü-özünü əbədiləşdirmişdir.

Ulu öndər çıxışlarında hər zaman xüsusi vurğulamışdır ki, müasir dünyada qloballaşma proseslərinin nəticəsi kimi ortaya çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlər hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunması məsələsini çağdaş zamanın aktual məsələlərindən birinə çevirir. Problemi aktuallaşdıran başlıca amil budur ki, qloballaşma prosesinin və çoxqütblü inteqrasiyanın diktələri bir çox hallarda milli-mənəvi dəyərlərə, adət-ənənələrə, saf duyğulara qarşı yönəlir. Heydər Əliyevin Vətəninə, xalqına, milli irs və ənənələrə bağlılığı bu təhdidlərin önündə əzəmətli sipərə çevrilmiş, bütövlükdə xalqın milli özünəməxsusluğunu qorumuşdur. Bu dahi şəxsiyyət Azərbaycanın min illərin sınağından çıxmış mədəniyyətinə, tarixinə, ənənəsinə həddən artıq bağlı olmaqla yanaşı, onların olduğu kimi xalqa qaytarılması üçün əlindən gələni əsirgəməmişdir. Dahi öndərin böyüklüyü həm də ondadır ki, milli ənənələrimizə bu dərəcədə yüksək bağlılıq onun timsalında bəşəri tərəqqi ilə təzad yaradan konservativ yanaşma kimi sezilmir.

Ümummilli lider Heydər Əliyev bu gün həm də müstəqil Azərbaycanın milli sosial-iqtisadi inkişaf modelinin banisi kimi ehtiramla xatırlanır. 1993-1995-ci illərdə Azərbaycanın hansı iqtisadi modelə üstünlük verəcəyi ilə bağlı çoxlu fikirlər, təkliflər irəli sürülsə də, böyük strateq hansısa dövlətin təcrübəsinin olduğu kimi milli iqtisadiyyata köçürülməsini düzgün saymamışdır. Ümummilli lider demokratik həyat tərzinin diktə etdiyi gerçəklik kimi bazar iqtisadiyyatı prinsiplərinə sadiq qalaraq Azərbaycanın özünəməxsus sosial-iqtisadi inkişaf modelini irəli sürmüş və onu əsaslandırmışdır. Azərbaycanda bazar iqtisadiyyatı prinsiplərinin geniş tətbiq

olunması ilə yanaşı, cəmiyyətin aztəminatlı təbəqəsi üçün sosial yardım sisteminin formalaşdırılmasına, sosial ədalət prinsipinin bütün səviyyələrdə bərqərar olmasına çalışmışdır.

İqtisadi islahatların ardıcıl və sistemli şəkildə aparılmasının tərəfdarı kimi çıxış edən Heydər Əliyev yeni mərhələdə, ilk növbədə, dövlət mülkiyyətinin özəlləşdirilməsi vacibliyini önə çəkmiş, bu proses keçid dövrünün bəzi xırda çatışmazlıqlarına rəğmən, uğurla başa çatdırılmışdır. Ümummilli lider yaxşı bilirdi ki, dövlət mülkiyyətinin xalqın mənafeyinə uyğun formada özəlləşdirilməsi sərbəst bazar rəqabəti prinsiplərinin, xüsusi mülkiyyətçiliyin bərqərar olması, habelə milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyası, insanların şüurunda, həyat tərzində əsaslı dəyişiklik deməkdir. Ölkədə həyata keçirilmiş özəlləşdirmə prosesinin məqsədi də məhz hər bir vətəndaşın iqtisadi islahatlarda şəxsi marağını təmin etmək, əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq, sağlam rəqabətə əsaslanan istehsal üçün şərait yaratmaq olmuşdur. İqtisadiyyatın bütün sahələrini əhatə edən özəlləşdirmə prosesi müstəqil respublikamızda bazar iqtisadiyyatı meyarlarının sürətlə formalaşmasına, ölkənin xarici iqtisadi əlaqələrinin yüksəlməsinə ciddi zəmin yaratmışdır.

Özəlləşdirmə prosesi ilə paralel respublikamızda həyata keçirilən struktur islahatları Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafına, o cümlədən yerli və xarici investisiyalar, müasir texnologiyalar, idarəetmə təcrübəsi cəlb etməklə, rəqabət qabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan vermişdir. Respublika iqtisadiyyatının keyfiyyətcə yeni mərhələsində məhz özəl sektoru sosial-iqtisadi inkişafın başlıca təminatçısı kimi dəyərləndirmiş, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışmışdır. 1997-2002-ci illərdə respublikada sahibkarlığın inkişafı üçün zəruri maliyyə təminatı yaradılmış, süni maneələrin aradan qaldırılması üçün mükəmməl qanunvericilik bazası formalaşdırılmış, fəaliyyətin bu növü ilə məşğul olanların hərtərəfli stimullaşdırılması məsələsi diqqət mərkəzində saxlanılmışdır. İnvestisiyaların təşviqi üçün respublikada daha münbit şərait yaratmaq, daxili və xarici sərmayəni stimullaşdıran səmərəli metodlardan istifadə etmək, xarici kapital qoyuluşunun başlıca istiqamətini regionların, qeyri-neft sektorunun inkişafına yönəltmək, habelə maddiləşən işgüzar fəallığı gücləndirmək üçün kompleks tədbirlər həyata keçirilmişdir.

Ümummilli lider Heydər Əliyevin diqqət yetirdiyi əsas məsələlərdən biri də neft gəlirlərindən düzgün istifadə etmək, “Holland sindromu”na imkan verməməkdən ibarət olmuşdur. “Neft təkcə indiki deyil, həm də gələcək nəsillərə məxsusdur” – deyən dahi öndər iqtisadiyyatın birqütblü inkişafının yolverilməzliyini daim vurğulamaqla yanaşı, istehsal sahibkarlığının geniş vüsət almasına, fəaliyyətini dayandırmış bir sıra iri müəssisələrin işə salınmasına, bir sözlə, qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirmişdir. Ulu öndərin gərgin səyləri ilə Azərbaycanda torpaq islahatları bir sıra MDB dövlətlərindən fərqli olaraq tamamilə rəvan şəkildə həyata keçirilmiş, kəndlinin mənafeyinə cavab vermişdir. Bu mərhələdən həmçinin aqrar islahatları daha da dərinləşdirmək, onun ikinci mərhələsinə keçidi təmin etmək, kəndli-fermer təsərrüfatlarının bazar iqtisadiyyatı prinsiplərinə cavab verən, keyfiyyətcə yeni forma, prinsiplər və qaydalara əsaslanan, müasir tipli kollektiv əməyin tətbiqi sahələrini yaratmaq məqsədilə ciddi addımlar atılmışdır.

1995-1996-cı illərdə “Aqrar islahatların əsasları”, “Sovxoz və kolxozların islahatı”, “Torpaq islahatı haqqında” qanunların və digər vacib hüquqi aktların qəbulu aqrar-sənaye kompleksində köklü dəyişikliklər aparmaq üçün imkanlar açmış, “Torpaq islahatı haqqında” qanunda Müstəqil Dövlətlər Birliyi məkanında ilk dəfə olaraq torpağın xüsusi mülkiyyətə verilməsi, onun alqı-satqı obyekti olması kimi amillər əksini tapmışdır. Kənd təsərrüfatında aparılan ciddi struktur islahatları sayəsində dövlət mülkiyyətində saxlanılan az sayda damazlıq, toxumçuluq və digər təsərrüfatlar istisna olmaqla, bütün kənd təsərrüfatı müəssisələri, o cümlədən sovxoz və kolxozlar ləğv edilərək onların əmlakı təsərrüfat üzvləri arasında bölüşdürülmüşdür. Kənddə yeni mülkiyyətin – kəndli-fermerlərin formalaşmasının sürətləndirilməsi kənd təsərrüfatında işlərin daha yaxşı təşkili və aqrar bölmənin inkişafı üçün möhkəm zəmin yaratmışdır.

Ulu öndər Azərbaycanda daim sosialyönümlü bazar iqtisadiyyatının tərəfdarı olmuş, özəl sektorun dinamik inkişafı şəraitində sosial problemlərin həllinə, o cümlədən işəgötürənlərlə işçilər arasında əmək münasibətlərinin qanunamüvafiq qaydada tənzimlənməsini təmin etmək üçün dəfələrlə qanunvericilik təşəbbüsündən istifadə etmişdir. Bu gün qürur hissi ilə deyə bilərik ki, Azərbaycanda Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) müstəqil qurum kimi formalaşması da məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ümummilli liderin şəxsi təşəbbüsü və nəzarəti altında keçmiş postsovet məkanında ilk dəfə olaraq Azərbaycanda həmkarlar ittifaqları haqqında qanun qəbul edilmiş, bununla da təşkilatımızın normal fəaliyyətinə şərait yaradılmışdır. Ulu öndərin uzaqgörən siyasəti sayəsində həmkarlar ittifaqlarının uzun illər ərzində yaranmış maddi-texniki bazasının dağıdılmasının qarşısı alınmış, həmkarlar ittifaqlarının demokratik idarəetmə prinsiplərinə əsaslanan fəaliyyətinə dəstək verilmişdir. İşinin çoxluğuna baxmayaraq həmişə bu qurumun fəaliyyətini izləməyə, ona yardım göstərməyə vaxt tapmış, qurultaylarına təbrik məktubları göndərmiş,

əldə olunmuş nailiyyətləri yüksək qiymətləndirmiş, zəruri tövsiyələrini vermişdir. Ulu öndərin 2003-cü il 5 fevral tarixdə AHİK-in II qurultayına ünvanladığı təbrik məktubunda deyilirdi: "Bu gün respublikamızın iqtisadi potensialından daha səmərəli istifadə edilməsi və vətəndaşlarımızın maddi rifah halının yaxşılaşdırılması məqsədi ilə həyata keçirilən iqtisadi islahatlar öz bəhrəsini verməkdədir. Ölkəmizdə yeni iqtisadi sistem, yeni mülkiyyət formaları və təsərrüfat mexanizmləri formalaşmış, iqtisadiyyatımız ardıcıl inkişaf yoluna qədəm qoymuşdur. Xüsusi mülkiyyətə əsaslanan təsərrüfat subyektlərinin fəaliyyəti üçün yaradılan şərait insanların fərdi təşəbbüskarlığının reallaşmasına geniş meydan açmışdır. Sahibkarlığın inkişafı ölkə iqtisadiyyatında özəl bölmənin aparıcı mövqe qazanmasına təkan vermişdir. Yeni şəraitdə həmkarlar ittifaqlarının cəmiyyətdəki rolu daha da artmışdır. 1994-cü ildə qəbul olunmuş "Həmkarlar İttifaqları haqqında" Azərbaycan Respublikasının Qanunu bu qurumun cəmiyyətimizdəki fəaliyyətinin yeni prinsiplər əsasında tənzimlənməsi və vətəndaşlarımızın sosial-iqtisadi mənafelərinin qorunmasında fəal iştirakı üçün hüquqi baza yaradır. Həmkarlar ittifaqları hazırkı dövrdə əmək prosesinə cəlb olunmuş Azərbaycan vətəndaşlarının hüquqlarının müdafiəçisi kimi ölkəmizdə fəaliyyət göstərən bütün müəssisələrdə, o cümlədən xarici sərmayə ilə işləyən təşkilatlarda, transmilli kampaniyalarda iş şəraitinin müasir standartlara uyğunlaşdırılması, sosial problemlərin həlli və əmək hüquqlarının təmin olunması sahəsində yeni metod və vasitələrdən istifadə edərək daha ardıcıl və məqsədyönlü fəaliyyət göstərməlidirlər. Vətəndaşlarımızın ən böyük ictimai təşkilatı olan həmkarlar ittifaqları yeni cəmiyyət quruculuğunda yaxından iştirak etməli, sosial siyasətin həyata keçirilməsində önəmli rol oynamalıdırlar".

Hər bir liderin dövlət idarəçiliyində qazandığı uğur və nailiyyətləri şərtləndirən başlıca amillərdən biri də ciddi təmələ söykənən siyasi varislik ənənələrinin qorunmasıdır. Söhbət ölkənin və dövlətin sabit, dinamik inkişafının təkamül yolu ilə davam etdirilməsi xəttinin etibarlı şəkildə qorunmasından gedir. Bu baxımdan ulu öndərin nəhəngliyi həm də ondadır ki, güclü dövlət yaratmaqla yanaşı, onu özündən sonra inamla idarə edəcək, çoxşaxəli mütərəqqi islahatların varisliyini uğurla təmin edəcək peşəkar lider, layiqli davamçı yetişdirmişdir. Xalqın sosial sifarişi əsasında Heydər Əliyev siyasi kursunu davam etdirmək kimi çətin və məsuliyyətli bir missiyanı 2003-cü ilin oktyabrından üzərinə götürmüş cənab İlham Əliyev də öz siyasətini həmin ənənələr çərçivəsində qurur. Ümummilli liderin müəyyən etdiyi strategiyanı uğurla həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə, onun xalqına, dövlətinə necə bağlı lider olduğu bir daha təsdiqini tapır. Dövlət başçısının idarəçilik keyfiyyətlərindən ən mühümü, şübhəsiz, uzun illər boyu zərrə-zərrə formalaşaraq sabitləşmiş milli dövlətçilik ənənələrinə sadiqlikdir.

Siyasi liderlik, şübhəsiz, kütlələri ətrafında birləşdirmək bacarığında ifadə olunur. Bu nöqteyi-nəzərdən Azərbaycan Prezidenti İlham Əliyevin şəxsiyyət və lider kimi böyüklüyü onun ideyalarının inteqrativ-birləşdirici mahiyyətindən, ilk növbədə hər bir vətəndaşın maraqlarına hesablanmasından irəli gəlir. Dövlət başçısının milli birlik və həmrəylik konsepsiyası dərin məzmun yükü ilə cəmiyyətin mənəvi bütövlüyündə və monolitliyində aparıcı amilə çevrilməkdən savayı, həm də ona xalqı öz ətrafında birləşdirmək, milli ideallar ətrafında səfərbər etmək imkanı vermişdir. Cənab İlham Əliyev səlahiyyətlərinin icrasına başladığı ilk gündən cəmiyyətin bütün siyasi qüvvələrinin, sosial qruplarının, dini-etnik konfessiyalarının birliyini təmin etmək istiqamətində ardıcıl siyasət yürütmüşdür.

İqtisadi cəhətdən inkişaf etmiş dövlətlərin sınaqdan çıxmış təcrübəsi göstərir ki, siyasi hakimiyyətin müəyyən zaman intervalında əldə etdiyi uğur və nailiyyətləri şərtləndirən başlıca amil məhz sosial məsuliyyət prinsipidir. Cəmiyyət qarşısında götürdüyü öhdəliklərə sadiqlik nümayiş etdirən hakimiyyət komandası xalqa layiqli xidmət məramını əsas tutmaqla, ölkənin bütün mövcud resurslarını qarşıya qoyduğu strateji məqsədlərin gerçəkləşdirilməsi naminə səfərbər edir, siyasətində hər bir fərdin maraq və mənafeyini nəzərə almağa çalışır. Fəaliyyətini hər zaman ictimai inam və etimadı doğrultmaq məramı üzərində quran, hakimiyyətin mütəmadi olaraq gördüyü işlərlə bağlı xalqa hesabat verməsini idarəçilikdə mütərəqqi ənənə kimi formalaşdıran Azərbaycan Prezidenti İlham Əliyev də məhz fenomenal liderlik keyfiyyətləri sayəsində respublikamızı qısa müddətdə bütün sahələrdə sürətli inkişaf yoluna çıxarmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə vurğulamışdır ki, sosial-iqtisadi hüquqların müdafiəsi sahəsində dövlətin əsas vəzifəsi mütərəqqi iqtisadi və sosial islahatları həyata keçirmək, iqtisadi inkişaf prosesində hər bir vətəndaşın iştirakını təmin etmək, mövcud potensialdan hər bir fərdin bacarıq və qabiliyyətinə görə ədalətli şəkildə yararlanmasına şərait yaratmaqdır. Dövlətin öz vətəndaşlarının həyati tələbatlarının ödənilməsinə göstərdiyi qayğı özünü bilavasitə sosial təminat sistemində büruzə verir. Respublikada son 7 ildə həyata keçirilən iqtisadi siyasətin əsasən sosialyönümlü mahiyyət daşıması da bir sıra reallıqlarla şərtlənmiş, cəmiyyətin sosial sifarişini əks etdirmişdir.

Dövlət başçısı Nazirlər Kabinetinin 2010-cu ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasında sosial məsələlərin diqqət mərkəzində olduğunu bir daha vurğulamışdır: "Sosial məsələlərin

həllinə gəldikdə, iqtisadi inkişaf bu məsələlərin həlli üçün başlıca şərtdir. Əgər güclü iqtisadi siyasət olmasa, heç bir sosial layihəni, sosial proqramı icra etmək mümkün olmayacaqdır. Biz bütün sosial proqramları uğurla icra edirik. Pensiyalar, maaşlar vaxtaşırı artırılır. Bu il də maaşların və pensiyaların artımı nəzərdə tutulur. Ünvanlı sosial proqram uğurla icra edilir. Bütün sosial proqramlar, sosial ödəmələr vaxtında təmin edilir".

Azərbaycan Prezidenti İlham Əliyevin insana qayğı və hörmət prinsipinə əsaslanan liberal siyasəti sayəsində bu gün hər bir vətəndaşın əmək hüququ da yüksək səviyyədə qorunur. Bazar münasibətlərinin, demokratik inkişafın tərəfdarı olan möhtərəm Prezident bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə həmkarlar təşkilatlarının roluna yüksək önəm verir və milli iqtisadiyyatın sürətli yüksəliş mərhələsində əmək münasibətlərinin hüquqi çərçivədə tənzimlənməsini cəmiyyətin mənəvi təkamül yolu ilə inkişafının mühüm şərti sayır. Son illərdə dövlət başçısının həmkarlar təşkilatlarının cəmiyyətdəki rolunun artırılması məqsədilə verdiyi bir sıra mühüm fərman və sərəncamlar da bunu bir daha təsdiqləyir. 2008-ci ildə həmkarlar təşkilatlarının qurultayının yüksək səviyyədə keçirilməsi, habelə bu sahədə çalışan işçilərin bir qisminin Azərbaycan Prezidenti tərəfindən təltif olunması da yüksək diqqət və qayğının əyani təzahürüdür. Bundan əlavə, Milli Məclisdə yeni dövrün tələbləri nəzərə alınmaqla, Əmək Məcəlləsinə edilmiş mütərəqqi dəyişikliklər dövlətin işçilərin hüquqlarının qorunması, onların sağlam və təhlükəsiz iş şəraiti ilə təmin olunması istiqamətində atdığı mühüm addımlardandır.

Azərbaycan Prezidenti İlham Əliyev AHİK-in 2008-ci il fevralın 5-6-da keçirilmiş III qurultayına təbrik məktubunda respublikanı dərin sosial-iqtisadi və siyasi böhrandan çıxaran ümummilli lider Heydər Əliyevin həmkarlar təşkilatlarını müxtəlif siyasi qüvvələrin təsirindən qoruduğunu, öz missiyasını yerinə yetirməsinə lazımi şərait yaratdığını xatırlatmışdır: "Bu gün respublikamızın iqtisadiyyatında özəl bölmə aparıcı mövqeyə malikdir. Yeni yaradılmış yüz minlərlə iş yerinin əksəriyyəti bu bölmənin payına düşür. Ölkədə yüzlərlə yerli və xarici şirkət fəaliyyət göstərir. Həmkarlar ittifaqları belə müəssisələrdə əmək prosesinə cəlb olunmuş vətəndaşlarımızın iş şəraitinin yaxşılaşdırılması, sosial problemlərinin həlli və əmək hüquqlarının təmin olunması üçün ardıcıl və məqsədyönlü tədbirləri davam etdirməlidir. Müstəqil dövlətimizin dünya birliyinə inteqrasiya olunması həmkarlar ittifaqlarının beynəlxalq əlaqələrinin qurulması üçün geniş şərait yaradır. Hesab edirəm ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası üzvü olduğu Beynəlxalq Əmək Təşkilatı və Beynəlxalq Azad Həmkarlar İttifaqları Konfederasiyası kimi nüfuzlu qurumların imkanlarından bəhrələnərək əməyin təşkili və sosial problemlərin həlli sahəsində qabaqcıl dünya təcrübəsini dərindən öyrənməli və ölkəmizdə tətbiq etməlidir. Bu prosesdə həmkarlar ittifaqı təşkilatlarının yeniləşməsi və inkişaf etməsi zamanın tələbidir. Məhz müasir təcrübəyə yiyələnərək peşəkarlığını artıran, güclü və nüfuzlu həmkarlar ittifaqı təşkilatları öz fəaliyyətində uğur qazana bilər".

AHİK-in III qurultayının nümayəndələri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanladıqları müraciətdə dövlət başçısının ölkə vətəndaşları qarşısında qoyduğu vəzifələrin reallaşdırılması istiqamətində səylərini əsirgəməyəcəklərini bildirmiş, bu sahədə mühüm tədbirlərin həyata keçiriləcəyinə çalışacaqlarını vəd etmişlər. Qurultay nümayəndələri belə bir yekdil fikri vurğulamışlar ki, bu gün Azərbaycanın hərtərəfli inkişafının təməlində duran əsas amillər ümummilli lider Heydər Əliyevin siyasi kursunun uğurla davam etdirilməsi, idarəetmə sahəsində təşəbbüskarlıq və prinsipiallığın geniş bərqərar olması, nəhayət, xalqın cənab İlham Əliyevə göstərdiyi böyük inam və etimaddır. Bütün bunların nəticəsində ölkəmizdə ictimai-siyasi sabitlik dönməz xarakter almış, demokratiyanın inkişafı, o cümlədən insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində işlər inamla davam etdirilmişdir. Qurultayda 1 milyon 600 min üzvü olan Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının ölkə əhalisini 2008-ci ildə keçirilən prezident seçkilərində ulu öndərin layiqli davamçısı, siyasi varisi cənab İlham Əliyevə səs verməyə çağırması da məhz bu reallığa əsaslanmışdı.

Ümumiyyətlə, son illərdə ölkədə uğurla həyata keçirilən sosial-iqtisadi və hüquqi islahatlar bir daha təsdiqləyir ki, Prezident İlham Əliyev dövlətçilik təcrübəsində siyasi varislik ənənələrinin davamı, üstəlik, mütərəqqi inkişaf meyillərinin gücləndirilməsi prioritet istiqamət təşkil edir. Üstünlüyü, obyektiv xarakteri və alternativsizliyi ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu illər ərzində dəfələrlə öz təsdiqini tapmış bu siyasi kursun davamlılığının təmin olunması isə Azərbaycanın dövlətçilik əsaslarının daha da möhkəmləndirilməsinə, müstəqilliyimizin əbədiliyinə, dövlətin hərtərəfli yüksəlişinə ən etibarlı təminatdır.

"**Azərbaycan**".-2010.-29 aprel.-N 91.-S.3.

# TARİXDƏ VƏ YADDAŞLARDA ƏBƏDİ YAŞAYACAQ ŞƏXSİYYƏT

**Arif RƏHİMZADƏ,**
Milli Məclisin komitə sədri,
YAP İdarə Heyətinin üzvü

**Azərbaycan Prezidenti İlham Əliyev 2009-cu ilin noyabrında Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə demişdir: "Azərbaycan iqtisadi cəhətdən artıq oturuşmuş dövlət kimi tanınır. Mən hesab edirəm ki, biz artıq iqtisadi sahədə keçid dövrünü başa vurmuşuq". Son 15 ilin sosial-iqtisadi inkişafının reallıqları əks olunan bu bəyanat ulu öndər Heydər Əliyevin əsasını qoyduğu iqtisadi irəliləyişdə yeni mərhələnin başlandığını nümayiş etdirir. Bu irəliləyiş təkcə ölkənin iqtisadi qüdrətinin artması ilə deyil, həm də keyfiyyətcə yeni hədəflərin müəyyənləşdirilməsi, daha mürəkkəb vəzifələrin yerinə yetirilməsi ilə bağlı olacaqdır. Həmin vəzifələr sırasında ən vacibi idxalı əvəz edən məhsul istehsalının artırılması barədə dövlət başçısının göstərişidir.**

İdxalın əvəz edilməsi problemi heç də bu gün əmələ gəlməmişdir. Ötən 15 il ərzində sənaye və kənd təsərrüfatı istehsalının inkişaf etdirilməsi və istehlak olunan məhsullar içərisində özümüzün istehsal etdiyimiz malların payının artırılması üçün müəyyən tədbirlər görülmüşdür. Heydər Əliyevin müdrik siyasəti ilə tətbiq olunan bu tədbirlər ölkədə iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı sahəsində həyata keçirilən proqramın tərkib hissəsidir. Kredit siyasəti, elektroenergetika, yol və digər kommunikasiya obyektlərinin, məhsul emalı və saxlanması müəssisələrinin tikintisinə dair geniş miqyaslı proqram, kiçik və orta biznesin dəstəklənməsi, hüquqi şəxslərin qeydiyyatının sadələşdirilməsi və digər tədbirlər həmin məqsədlərə nail olmağa yönəldilmişdir.

İdeya nə qədər cəlbedici olsa da, əvvəllər üstün vəzifə kimi irəli sürülə bilmirdi. Ölkənin sosial-iqtisadi göstəriciləri, yüksək inkişaf dinamikası bu vəzifənin qarşıya qoyulması üçün təməl yaratdı. Ötən il dünyada maliyyə böhranının hökm sürdüyü şəraitdə belə Azərbaycan ÜDM-in və sənaye istehsalının artımına görə dünya reytinqində lider mövqelərini qoruyub saxlaya bilmişdir. Kənd təsərrüfatı məhsullarının həcmi 3,5 faiz artmışdır. Makroiqtisadi sabitlik qorunmuş, investisiya və sosial proqramlar yerinə yetirilmiş, inflyasiyanın xeyli azaldılmasına nail olunmuşdur. Ölkənin valyuta ehtiyatları rekord göstəricilərə çatmışdır.

İdxalı əvəz edən məhsul istehsalının artırılmasına, əhalinin tələbatının yerli istehsallar hesabına daha dolğun ödənilməsinə, habelə ixracın genişləndirilməsinə dair Azərbaycan Prezidentinin qarşıya qoyduğu vəzifənin yerinə yetirilməsi əsasən iqtisadiyyatın aqrar sektorunda cəmləşdirilmişdir. Çünki ölkəmizin təbii-iqlim şəraiti yüksək keyfiyyətli kənd təsərrüfatı məhsulları istehsal etməyə imkan verir.

Aqrar sahə ölkə iqtisadiyyatında həmişə çox böyük yer tutmuşdur. Ulu öndər Heydər Əliyev bu sahəni əsas prioritetlərdən biri sayırdı. Onun ölkəyə rəhbərlik etdiyi illər ərzində kənd təsərrüfatının inkişafında əhəmiyyətli tərəqqi əldə edilmişdir. Əgər 1969 – 1982-ci illərdə Azərbaycanın fövqəldövlət tərkibində olduğu dövrdə əsas diqqət sahənin ixtisaslaşmasına və təmərküzləşməsinə yetirilirdisə müstəqillik qazanıldıqdan sonra başqa yol seçildi. Aqrar sahədə əsaslı islahatlar həyata keçirildi. Kolxoz və sovxozların torpağı və əmlakı kənd yerlərində yaşayan insanların mülkiyyətinə verildi. Minlərlə fermer və kəndli təsərrüfatı yaradıldı. Kənd təsərrüfatı məhsulları istehsalçıları üçün indi qüvvədə olan şərtlər müəyyənləşdirilir: onlar torpaq vergisindən başqa bütün vergilərdən azad edildilər. Bir sözlə Heydər Əliyev dühasının uzaqgörən siyasəti nəticəsində Azərbaycan kəndlisi torpaq sahibinə çevrildi.

Ölkənin son illər artan iqtisadi potensialı və büdcə imkanları aqrar sahəyə dövlət dəstəyinin həcmini artırmağa imkan vermişdir. 2004-cü ildən başlayaraq kəndlilərin yanacağa, sürtkü materiallarına və mineral gübrələrə çəkdikləri xərclərin xeyli hissəsi dövlət büdcəsinin vəsaiti hesabına kompensasiya edilir. Fermer təsərrüfatlarının və kənd təsərrüfatı məhsullarının emalı sahəsinin inkişafına güzəştli kreditlər ayrılır. Kənd təsərrüfatı maşınlarının və avadanlığının lizinqi getdikcə daha çox inkişaf edir. Təsərrüfatlar güzəştli şərtlər əsasında məhsuldar mal-qara ilə təmin edilir. Buğda becərilməsinə görə xeyli güzəştlər müəyyənləşdirilmişdir. Təsərrüfatların texnika və avadanlıqla təchizatı yaxşılaşdırılır, onlara aqrotexniki xidmət göstərən müəssisələr yaradılır. Kənd yerlərində məhsulun emalı, saxlanması və tədarükü müəssisələri tikilir ki, bu da itkilərin azaldılmasına, kəndlilərin istehsal fəaliyyətindən götürdükləri gəlirlərin artırılmasına şərait yaradır. 2008-2015-ci illərdə respublika əhalisinin etibarlı ərzaq təminatına dair Dövlət Proqramı həyata keçirilir.

Bütün bunlar kənd təsərrüfatı məhsulları istehsalının artımına böyük kömək göstərmişdir. Bununla birlikdə, etiraf etmək lazımdır ki, dövlət yardımına dair sanballı tədbirlər kompleksi sahənin bir sıra fundamental problemlərini lazımınca həll etmir. Bunlar əsasən təsərrüfatların optimallaşdırılması, kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, emalı və satışı prosesində gəlirlərin tərəfdaşlar arasında ədalətli bölgüsünü təmin edən infrastrukturun yaradılmasıdır.

Təsərrüfatların optimallaşdırılması probleminin üzərində dayanaq. Hazırda bir fermer və ailə kəndli təsərrüfatının payına orta hesabla 2 hektardan da az əkin yeri düşür. Bu göstərici fermer və kəndli təsərrüfatları tərəfindən bələdiyyə torpaqlarının və digər torpaqların icarəyə götürülməsi hesabına bir qədər çox ola bilər. Son illərdə bir sıra təsərrüfatlar yaradılmışdır ki, onların sahəsi 200-300 hektar və daha çoxdur. Həmin təsərrüfatlarda sahələrin genişlənməsi digər mülkiyyətçilərdən torpaqların icarəyə götürülməsi və satın alınması hesabına mümkün olmuşdur. Təəssüf ki, bu cür nümunələr qayda halında deyil, daha çox istisna təşkil edir. Onların sayı azdır. Bütün bunlar torpaq sahələrinin xırdalığı ilə bağlı ümumi mənzərəni dəyişmir. Nəticədə ölkənin bütün torpaq sahəsinin 90-95 faizində kənd təsərrüfatı məhsullarının səmərəli istehsalı üçün ilkin şərait yoxdur. Təsərrüfatçılıq subyektləri sərəncamında olan xırda torpaq sahələrində mütərəqqi texnologiyaları və hətta adi aqrotexniki tədbirləri, növbəli əkini tətbiq etmək üçün kənd təsərrüfatı texnikası əldə etmələri bir yana qalsın, hətta ondan istifadə etməyə qadir deyillər. Belə təsərrüfatların görüb-görəcəyi ağır əl əməyi və bunun nəticəsi olan aşağı məhsuldarlıq, bir də cüzi qazancdır.

Problemin həlli mülkiyyətçilərin fəal kooperasiyası və öz torpaq sahələrindən birgə istifadə etməsi, optimal torpaq sahələrinə malik təsərrüfatların yaradılması yolu ilə mümkündür. Bəs səbəb nə idi ki, torpaqların birgə becərilməsi zəruri hesab edildiyi halda kolxoz və sovxozların torpaqları xüsusi mülkiyyətə verildi? Əvvəla, kolxozçuların və sovxoz işçilərinin muzdur vəziyyətində olması onları insan fəaliyyətinin vacib stimulu olan mülkiyyətçi hissindən məhrum edirdi. İkincisi, 1980-ci illərin sonunda kolxoz və sovxozlara rəhbərliyin inzibati-amirlik üsulları öz potensialını tükəndirmişdi və sahənin gələcək inkişafını təmin etmirdi. Tarlada və ya fermada işləyən insanlar üçün bir o qədər də, hətta daha çox nəzarətçi mövcud idi. Nəhayət təklif edilən kooperasiya kolxozların yaradılması deyil. Bu, mülkiyyətin saxlanması və müəssisənin idarə edilməsində hüquqların qorunması şərti ilə birgə fəaliyyət üçün könüllü birləşməkdir.

Belə birləşmə torpağın icarəsi və mülkiyyətə alınması kimi praktikada özünü doğrultmuş genişlənmə üsullarından istifadəni də istisna etmir. Lakin torpaq sahəsinin ölçülərini optimallaşdırmağın çoxvariantlığı şəraitində belə əsas şübhəsiz ki, fermer və ailə kəndli təsərrüfatlarının kooperasiyası olacaqdır.

Aqrar sektorun infrastrukturu sahənin uğurlu inkişaf etməsi üçün bir sıra tələblərə uyğun gəlməlidir. Birincisi, kənd təsərrüfatı texnikasına və avadanlığına kompleks maddi-texniki xidmət göstərilməlidir. İkincisi, kənd təsərrüfatı məhsullarının tədarükünü, emalını, saxlanmasını və satışını təmin edən zəruri maddi baza olmalıdır. Üçüncüsü, kənd təsərrüfatı məhsulları istehsalçılarına aqrotexniki xidmətlər göstərilməlidir. Kənd təsərrüfatına kredit və sığorta xidməti göstərilməsi, məhsulun istehsalı-satışı prosesində iştirak edən tərəfdaşlar arasında gəlirlərin ədalətli bölgüsü də vacibdir.

Ölkədə aqrar sektorun yaradılmaqda olan infrastrukturu sadalanan tələblərə hələ ki, cavab vermir. Əlbəttə, göstərilən xidmətlərin sayı və keyfiyyəti ildən-ilə artır, infrastruktur müəssisələrin maddi-texniki bazası möhkəmlənir. Lakin həmin proseslərdə kəndlilərin fəal iştirakı olmadan, – necə ki, bu, indi baş verir, – lazımi infrastrukturun yaradılması çox uzun bir vaxt aparacaq, gəlirlərin ədalətli bölgüsü təmin edilməyəcək. Məsələn, kənd ərazisində süd emalı ilə yeganə müəssisə məşğuldur. O, inhisarçı kimi qiymətləri təyin edir, kəndlilərdən südün 1 litrini 30-40 qəpiyə alır, emal etdikdən və qablaşdırdıqdan sonra isə 80-90 qəpiyə satır. Digər kənd təsərrüfatı məhsulları ilə bağlı vəziyyət də eynilə bu cürdür. Nəticədə kəndlilərin istehsal fəaliyyəti hesabına əldə edilən gəlirin böyük hissəsi (bəzən 70-80 faizi) tədarük və emal müəssisələrinə çatır.

Kənd təsərrüfatının məhsuldarlığını əhəmiyyətli dərəcədə artırmağın və dövlət başçısının qarşıya qoyduğu vəzifələri yerinə yetirməyin ən real yolu təsərrüfatların torpaq sahələrinin böyüdülməsi, habelə aqrar sektorun lazımi infrastrukturunun yaradılması məqsədilə kəndlilərin fəal kooperasiyasıdır. Dövlətin imkanları bu məsələlərin həllinə səfərbər edilməlidir. Aqrar sektora dövlət dəstəyi tədbirlərinin köməyi ilə kəndlilərin kooperasiyaya cəlb olunmasına şərait yaradılmalıdır. Kooperativlərə güzəştli kreditlər, subsidiyalar, lizinq xidmətləri ilk növbədə ayrılmalıdır. Aqrar elmi kooperasiya işinə sanballı töhfə verməlidir. Hər bir təbii-iqlim zonası üçün təsərrüfatların optimal sahələri müəyyənləşdirilməli, kooperativlərin idarə edilməsinə, gəlirlərin bölüşdürülməsinə, kooperativ infrastruktur obyektlərinin yaradılmasına dair tövsiyələr və metodik vasitələr işlənib hazırlanmalıdır. Kooperasiyanın üstünlüklərinin izah edilməsi, qabaqcıl təcrübənin təbliği sahəsində düşünülmüş ciddi iş aparılması, digər tədbirlərin görülməsi böyük əhəmiyyət kəsb edəcəkdir. İstehlak kooperasiyası sisteminin – Azərittifaqın indi əslində istifadəsiz qalmış böyük imkanları hərəkətə gətirilməlidir. Onun prosesə qoşulması kənd təsərrüfatı məhsullarının tədarükü, emalı və satışı işində mövcud problemi xeyli azaltmağa kömək göstərərdi.

İdxalın əvəz edilməsi, daxili bazarın qorunması və özümüzün istehsal etdiyimiz məhsulların ixracının artırılması bütövlükdə aqrar sektorun inkişafına yeni yanaşmadır. Bu problem hər birimizin, xüsusən ölkə əhalisinin təqribən yarısını təşkil edən kəndlilərin mənafelərinə toxunur. Azərbaycan Respublikasının Prezidenti

İlham Əliyev tərəfindən keyfiyyətcə yeni olan bu vəzifənin qarşıya qoyulması ölkəmizin iqtisadi qüdrətinin dinamik inkişafının bariz nümunəsidir.

Heydər Əliyevin müdrikliklə başladığı torpaq islahatının mövcud uğurlu nəticəsi isə ulu öndərin Azərbaycan tarixində, o cümlədən hər bir vətəndaşın şəxsi taleyində nə kimi şərəfli səhifələr yaratmasını əyani olaraq göstərir.

“**Azərbaycan**“.-2010.-30 aprel.-N 92.-S.8.

# 1969-1982-Cİ İLLƏR – MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN TƏMƏLİNİN QOYULDUĞU DÖVR

**Sakit HÜSEYNOV,**
AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun şöbə müdiri,
fəlsəfə elmləri doktoru

**Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrün I mərhələsi (1969-1982-ci illər) xalqın yaddaşında respublikamızda nəinki iqtisadi yüksəliş, eyni zamanda quruculuq, yaşıllaşdırma və abadlaşdırma, yeni yaşayış məskənlərinin tikilməsi, əhalinin mənzil şəraitinin yaxşılaşdırılması və məişət mədəniyyətinin yüksəldilməsi dövrü kimi qalmışdır. Həmin illərdə istər kənd yerlərində, istərsə də şəhərlərdə əhalinin xeyli hissəsinin mənzil-məişət şəraiti yaxşılaşdırılmış, yeni yaşayış massivləri tikilmiş, fərdi evlərin sayı çoxalmış, insanların maddi rifahı xeyli yüksəldilmişdir.**

1969-1982-ci illər ərzində Heydər Əliyev tərəfindən Azərbaycanda quruculuq, abadlaşdırma və sosial-ekoloji problemlərin həlli istiqamətində həyata keçirilən kompleks tədbirlər – yaşıllaşdırma və abadlaşdırma, atmosfer, su və torpağın ekoloji cəhətdən qorunması, əhalinin içməli su ilə təmin edilməsi, mənzil tikintisi, şəhərsalma və s. ilə bağlı tədbirlər son nəticədə əhalinin məişət mədəniyyətinin yüksəldilməsində öz əksini tapmışdır. Yəni, sosioloji baxımdan yaşayış məskənlərində ekoloji problemlərin həll edilməsi əhalinin güzəranı, mənzil-məişət şəraiti ilə qarşılıqlı əlaqədədir. Buna görə də ekoloji problemlərin həlli ilə əlaqədar Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən müxtəlif tədbirləri şərh etməzdən əvvəl, əhalinin məişət ekologiyasının və bütövlükdə məişət mədəniyyətinin yüksəldilməsi istiqamətində görülən işlərin miqyasını tarixi-sosioloji aspektdə araşdırmaq bugünkü həyatımız üçün mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, məişət mədəniyyəti insan həyatında mühüm əhəmiyyət kəsb edir. Birincisi, məişət mədəniyyəti, demək olar ki, insanın həyat və fəaliyyətinin bütün tərəflərini əhatə edir. İkincisi isə, məişət mədəniyyəti ekoloji problemlərin məhək daşı funksiyasını yerinə yetirən sosial məkan rolu oynayır.

Sosioloji baxımdan məişət mədəniyyəti, əhalinin sağlamlığından tutmuş – onların yaşayış tərzi, mədəni səviyyəsi, davranışı, adət -ənənəsi, kənd, qəsəbə və şəhərlərin abadlığı, yaşayış məskənlərinin yaşıllıq dərəcəsi, şəhərsalma mədəniyyəti, mənzil şəraiti, yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi, yeni körpülərin və yol ötürücülərinin tikilməsi, əhaliyə göstərilən məişət xidmətinin səviyyəsi, kommunal şəraitin rahatlığı, istirahət zonalarının yaradılması və yaşayış yerlərinin ekoloji təmizliyinədək – geniş bir sahəni əhatə edir.

Buradan göründüyü kimi, məişət mədəniyyəti insan həyatında mühüm əhəmiyyət kəsb edir və ictimai həyatın digər sahələrində də özünü göstərir. Məhz buna görə də Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldiyi ilk gündən respublikanın iqtisadiyyatının inkişaf etdirilməsi ilə bərabər, əhalinin məişət şəraitinin yüksəldilməsinin də vacib olduğunu həmişə ön plana çəkirdi. Belə ki, 1971-ci il 5 fevral tarixdə Bakı Şəhər Partiya Komitəsinin 40-cı konfransındakı çıxışında ulu öndər bu barədə demişdir: “Respublikanın və Bakı şəhərinin iqtisadiyyatını inkişaf etdirərkən biz zəhmətkeşlərin rifahının yaxşılaşdırılması, onlar üçün ən əlverişli məişət şəraitinin yaradılması ilə əlaqədar ictimai problemin həlli ilə çox fəal məşğul olmalıyıq”.

Əhalinin məişət şəraitinin yaxşılaşdırılmasını mühüm ictimai problem hesab edən Heydər Əliyev özünün bütün fəaliyyəti dövründə həmişə bu problemi diqqət mərkəzində saxlamış və onun həll edilməsi üçün çalışmışdır. Bütün dövlət əhəmiyyətli tədbirlərdə xalqın məişət şəraitinin yüksəldilməsi, bütövlükdə məişət mədəniyyətinin inkişaf etdirilməsi müzakirə obyekti olmuş və bu sahədə müəyyən irəliləyişlər əldə edilmişdir. Ümummilli lider başa düşürdü ki, respublikada sosial-iqtisadi vəziyyəti yaxşılaşdırmaq hər bir fərdin sosial fəallığından asılıdır. Adamların sosial fəallığı isə onların güzəranı, gündəlik həyatının təşkil olunmasından, insanların tələbat və ehtiyaclarının ödənilməsindən, onlara göstərilən qayğıdan, ümumiyyətlə əhalinin məişət mədəniyyətinin yüksəldilməsindən asılıdır.

Bunları nəzərə alan Heydər Əliyev Azərbaycan KP-nin XXVIII qurultayındakı məruzəsində demişdir: “Zəhmətkeşlərin maddi rifahını daha da yüksəltməyə, adamların əmək və məişət şəraitini daha da yaxşılaşdırmağa daim qayğı göstərmək bizim ən doğma işimizdir. Bu iş partiya təşkilatının bütün fəaliyyətinin ayrılmaz tərkib hissəsidir. Partiya, sovet, həmkarlar ittifaqları və təsərrüfat orqanlarının vəzifəsi zəhmətkeşlərin güzəranının yaxşılaşdırılması ilə əlaqədar olan bütün beşillik tapşırıqların danışıqsız yerinə yetirilməsini təmin etməkdən, onların ehtiyac və tələbatlarının hər vasitə ilə ödənilməsinə nail olmaqdan ibarətdir. Yadda saxlamaq lazımdır ki, biz hər bir adama nə qədər çox qayğı göstərsək təsərrüfat quruculuğunun və mədəni quruculuğun bütün sahələrində müvəffəqiyyətimiz bir o qədər artıq olar”.

Buradan göründüyü kimi, əhalinin məişət şəraitinin yaxşılaşdırılmasına diqqət və qayğı göstərilməsini əlaqədar orqanların əsas vəzifəsi hesab edən ulu öndər bunu ölkənin təsərrüfat və mədəni quruculuğunun vacib

şərti kimi dəyərləndirmişdir. Məhz, 1969-1982-ci illərdə Azərbaycan Respublikasında ictimai həyatın bütün sahələrində quruculuq işlərinin vüsətini Heydər Əliyevin xalqın məişət şəraitinin yaxşılaşdırılmasına göstərdiyi qayğı və diqqətin nəticəsi kimi qiymətləndirmək olar.

Məişət mədəniyyətinin yüksəldilməsində əsas şərtlərdən biri də mənzil tikintisi və şəhərsalmanın düzgün planlaşdırılmasıdır. Əhalinin məişət mədəniyyətinin yüksəldilməsində şəhərsalmanın əhəmiyyətini dəqiq qiymətləndirən ümummilli lider Azərbaycana rəhbərlik etdiyi ilk vaxtlarda Bakı, Sumqayıt və Gəncə kimi iri sənaye şəhərlərində şəhərsalmanın planlı şəkildə və elmi əsaslarla aparılmasına ciddi fikir vermişdir. 1971-ci ildə Bakı şəhər partiya təşkilatının 40-cı konfransındakı çıxışında o, şəhərsalma məsələlərindən danışaraq bu sahədə Bakıda xeyli işlər görüldüyünü xüsusi qeyd etmişdir: “Şəhərsalmanın elmi əsaslarla planlaşdırılması və tikilməsi işlərinin davam etdirilməsi Bakı şəhəri üçün mühüm problemdir. Xüsusən son illərdə şəhərsalmanın inkişafı cəhətdən bizim Bakıda az iş görülməmişdir. İndi şəhərimiz yaraşıqlıdır və buraya gələn hər kəsin xoşuna gəlir. Bizim hamımız öz şəhərimizi sevirik və onunla haqlı olaraq fəxr edirik”.

Respublikada mənzil tikintisi və şəhərsalma məsələlərinə qayğı və diqqətlə yanaşan Heydər Əliyev əhalinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq və urbanizasiya prosesini məqsədyönlü şəkildə inkişaf etdirmək üçün əvvəlki illərdə şəhərsalma ilə bağlı görülən tədbirlərin həyata keçirilməsində buraxılmış nöqsanları ciddi tənqid etmişdir. O, Azərbaycan KP XXVIII qurultayında demişdir: “Həyata keçirilən tədbirlər kompleksində şəhərsalma və əhalini yerləşdirmə məsələlərinin həllindəki ciddi nöqsanları aradan qaldırmaq çox vacibdir. Yeni şəhərlər salınması, köhnə şəhərlərin yenidən qurulması, inkişaf etmiş maddi məişət və mədəni xidmət sisteminə malik olan abad kənd qəsəbələrinin salınması şəhər və kənd zəhmətkeşlərinin həyat şəraitinin bir-birinə yaxınlaşmasına kömək edəcəkdir “.

Əhalinin məişət şəraitinin yüksəldilməsində mənzil tikintisinin mühüm əhəmiyyət kəsb etdiyini dərindən bilən dahi rəhbər hələ 1971-ci ildə müvafiq təşkilatlar qarşısında bu problemin həll edilməsi üçün ciddi vəzifələr qoyaraq demişdir: “Bizim qarşımızda istifadəyə verilən mənzillərin sayını ən azı iki dəfə artırmaq, kooperativ tikintilərinin genişlənməsini və yaxşılaşmasını təmin etmək, yeni mənzil sahələrinin bölünməsi işində nəzarəti və məsuliyyəti artırmaq vəzifəsi durur. Bütün zəhmetkeşləri abad mənzillə təmin etmək problemi ən mühüm problemlərdən biri olaraq qalır və bütün partiya, sovet, həmkarlar ittifaqı və təsərrüfat orqanlarının diqqəti bu problemin həllinə yönəldilməlidir”.

Bu illərdə Bakı şəhərində mənzil tikintisini sürətləndirmək üçün görülən mühüm tədbirlərdən biri Heydər Əliyevin təşəbbüsü ilə iripanelli evtikmə kombinatlarının təşkil edilməsi oldu. Həmin kombinatların qüvvəsi ilə Bakının Yeni Əhmədli, Günəşli, Yeni Yasamal, 9-cu mikrorayon kimi yaşayış massivləri inşa olunmuş, on minlərlə insan yeni mənzillərə köçmüş və xeyli adam öz mənzil-məişət şəraitini yaxşılaşdırmışdır. Məlumdur ki, əhalinin məişət mədəniyyətinin yüksəldilməsində mənzil problemi mərkəzi yerlərdən birini tutur. Sosioloji baxımdan mənzil insan həyatında məişət şəraitinin əsas göstəricisi olan sosial mikroməkandır. Biz məişət mədəniyyətini fəlsəfi-sosioloji cəhətdən təhlil etdikdə mənzil probleminin məişət mədəniyyətinin inkişafındakı mühüm rolunu bir daha aydın görə bilərik.

Bakının inkişafına dair Baş Planın həyata keçirilməsinə şəxsən nəzarət edən Heydər Əliyev şəhərin bəzi yerlərində köhnə, uçmaq təhlükəsi ilə üzləşən, sanitar-gigiyena tələblərinə cavab verməyən, kommunal rahatlığı olmayan yaşayış binalarının, hətta bütöv bir məhəllənin uçurdulub yerində müasir binalar tikilməsi məsələsinə də ciddi diqqət yetirirdi.

Qeyd edək ki, zaman ulu öndərin şəhərsalma ilə bağlı olan uzaqgörən siyasətinin düzgün və perspektivli olduğunu bir daha sübut etmişdir. Hazırda Bakının bir çox yerlərində müasir layihələr əsasında tikilən çoxsaylı hündürmərtəbəli yaşayış evlərinin və ictimai binaların şəhərimizə yaraşıq verməsi, bütövlükdə şəhərdə aparılan abadlıq işlərinin nəticələri dahi rəhbərin həmin illərdə irəli sürdüyü təşəbbüslərin uğurla həyata keçdiyini göstərən faktlardır.

Məlumdur ki, şəhərsalma məsələlərində arxitektorların rolu böyükdür. Gözəl memarlıq işlərini yüksək qiymətləndirən Heydər Əliyev memar və arxitektorların əməyinə həmişə qayğı ilə yanaşmış, mənzil tikintisi və şəhərsalma məsələlərində onların fəaliyyətini həmişə layiqincə qiymətləndirmişdir. Bu baxımdan 1979-cu il dekabrın 7-də Azərbaycan Arxitektorlar İttifaqının XII qurultayının nümayəndələrini qəbul edərkən cəmiyyət həyatında arxitektorların rolundan bəhs edərək demişdir: “Respublika iqtisadiyyatının dinamik inkişafı, adamların rifahının durmadan yüksəlməsi, istehsal obyektlərinin, mədəniyyət, elm, təhsil müəssisələrinin, yaşayış evlərinin yüksək sürətlə tikilməsini, şəhərlərin, qəsəbələrin, kəndlərin daha tez abadlaşdırılmasını tələb edir. Bütün bu işlərdə arxitektorların rolu böyükdür. Bu məsələləri kompleks həll etmək zərurəti şəhərsalma sahəsində işin gücləndirilməsini tələb edir… Biz nə tikiriksə hamısı gözəl, orijinal olmalı, adamların estetik tələblərinə cavab verməlidir”. Görüşün sonunda arxitektorlara öz işlərində uğurlar arzulayan Heydər Əliyev yeni tikilən binalarda milli arxitektura formalarına geniş yer verməyi, binaların interyer və eksteryerlərində milli

naxışlardan səmərəli istifadə etməyi tövsiyə etmişdir ki, bu da ulu öndərin milli mədəniyyətimizə dərin məhəbbətini göstərən amillərdəndir.

Bütün bunlardan aydın olur ki, respublikamızın iri şəhərlərində şəhərsalma işlərinin elmi əsaslarla və uzaqgörənliklə planlaşdırılması, urbanizasiyanın tələblərinə əməl edilməsi, bacarıqlı və səriştəli rəhbərin təşkilatçılığı ilə əlaqədardır. Bu baxımdan 30 il bundan əvvəlki uzaqgörənlik ictimai həyatın başqa sahələrində olduğu kimi, şəhərsalma, urbanizasiya, məişət mədəniyyəti və sosial-ekologiya sahəsində də özünü göstərməkdədir.

Məişət mədəniyyətinin inkişaf göstəricilərindən biri də şəhər, kənd və qəsəbələrdə əhaliyə göstərilən xidmətin səviyyəsindən ibarətdir. Qeyd edək ki, əhaliyə məişət xidmətinin yaxşılaşdırılması, yeni xidmət növlərinin yaradılması və səviyyəsinin yüksəldilməsi ulu öndərin həmişə diqqət mərkəzində olmuşdur.

Yüksək səviyyəli partiya və təsərrüfat yığıncaqlarında əhaliyə göstərilən məişət xidmətlərinin vəziyyəti mütəmadi müzakirə olunmasına baxmayaraq, bu məsələyə ayrıca müşavirələr də həsr edilirdi. Əhaliyə göstərilən məişət xidmətinin yüksəldilməsinə həsr edilən belə tədbirlərdən biri də 1979-cu ilin aprel ayında keçirilmişdir. Şəhər əhalisinə göstərilən məişət xidmətinin vəziyyətini və onu daha da yaxşılaşdırmaq tədbirlərini müzakirə edən müşavirə iştirakçıları qeyd etmişlər ki, hazırda (1979-cu il nəzərdə tutulur – S.H.) Bakı şəhərinin əhalisinə 300 növdən artıq məişət xidməti göstərilir. Respublikanın o dövrdəki partiya və sovet rəhbərlərinin iştirak etdiyi bu yığıncaqda qeyd edilmişdir ki, son illərdə əhaliyə göstərilən məişət xidmətinin həcmi xeyli artmış, məişət xidməti şəbəkələri genişlənmiş, yeni xidmət növləri həyata keçirilmiş, bəzi məişət xidmətləri obyektlərində təzə texnoloji avadanlıqlar qurulmuşdur. Şəhərin 160-dan çox müəssisə və təşkilatında əhaliyə məişət xidmətinin göstərildiyi qeyd olunmuşdur. Bununla yanaşı, yığıncaq iştirakçıları əhaliyə göstərilən məişət xidməti sahəsində hələ də nöqsanlar olduğunu göstərməklə bəzi məişət xidməti təşkilatlarının əhaliyə yüksək xidmət göstərə bilmədiklərini, ayrı-ayrı müəssisələrdə bu işin tələbata cavab vermədiyini də qeyd etmişlər. Sonra respublika partiya rəhbərliyinin tapşırığı ilə yığıncaq iştirakçıları müzakirə olunan məsələ barəsində qətnamə qəbul edərək məişət xidməti sahəsində çalışanlara öz işlərində dönüş yaratmağı və Bakı şəhərini nümunəvi məişət mədəniyyəti şəhərinə çevirməyi tövsiyə etmişlər.

Məlumdur ki, əhaliyə göstərilən məişət xidməti işində iaşə və ticarət təşkilatları da müəyyən rol oynayır. İaşə və ticarət təşkilatları əhaliyə göstərilən xidmət işində tələbata cavab vermədiyinə görə ciddi tənqid olunmuşdur. Belə ki, Azərbaycan KP MK "Ticarəti və respublika əhalisinə xidməti inkişaf etdirmək sahəsində" məsələ müzakirə edərək Ticarət Nazirliyinin yarıtmaz işi haqqında qərar qəbul etmişdir.

Məhz Heydər Əliyevin göstərişi ilə xidmət sahələrinə tez-tez ictimai baxışlar keçirilir və nəticələr respublikanın rəhbər orqanlarında müzakirə edilərək müvafiq qərarlar qəbul edilirdi.

1969-1982-ci illərdə Heydər Əliyevin səyi və rəhbərliyi ilə mənzil tikintisi və abadlıq işləri şəhərlərdə olduğu kimi, kəndlərdə də böyük vüsət almışdı. Xüsusən həmin bu illərdə kənd əhalisinin maddi rifahı və pul gəlirləri artdıqca kəndlərdə yeni müasir tələbata cavab verən mənzillərin tikilməsi sürətlənməyə başlayır, onların məişət şəraiti yaxşılaşır, kəndlərin siması dəyişir, abadlıq işləri genişlənir və məişət mədəniyyəti inkişaf edirdi. Dahi rəhbər mənzil tikintisində Şərq üslubuna, milli mədəniyyətimizə sadiq qalmağa həmişə üstünlük verərək, bunu hamıya xatırladırdı. 1981-ci ilin aprel ayında keçirilən ümumrespublika iməciliyi zamanı ulu öndər Bakıda aparılan yaşıllaşdırma, abadlaşdırma və şəhərsalma işləri ilə tanış olmaq üçün şəhəri gəzərkən demişdir: "Bakının siması keçmişin və müasir şəhərsalma nailiyyətlərinin təkrarsız vəhdəti ilə fərqlənməlidir. Arxitektorlar, layihəçilər öz işlərində Azərbaycan memarlığının binalara Şərq koloriti verən ünsürlərdən geniş istifadə etməli, unutmamalıdırlar ki, hazırda inşa edilən ansambllar və tikililər Bakının sabahıdır və bunlar gələcək nəsillərimizi də sevindirməlidir".

1982-ci ilin sonunda (3 noyabr 1982-ci il) Moskvaya yüksək dövlət vəzifəsinə getməzdən əvvəl ümummilli lider Bakı şəhərində abadlıq və şəhərsalma işlərinə diqqət yetirməyi, əhalinin məişət mədəniyyətinin yüksəlməsinə qayğı göstərməyi tövsiyə etmiş və bunun üçün uzunmüddətli kompleks proqram hazırlamağı şəhər rəhbərliyinə tapşırmışdır. Bütün bunlar onun respublikamızda hakimiyyətdə olduğu 1969-1982-ci illərdə respublika əhalisinin məişət mədəniyyətinin yüksəldilməsi üçün göstərdiyi qayğı və diqqətinin parlaq təzahürüdür.

Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə hazırda Bakı şəhərində aparılan abadlıq işləri, müasir binaların tikilməsi, şəhərimizin gözəlləşdirilməsi və məişət mədəniyyətimizin yüksəldilməsi, ümummilli liderimiz Heydər Əliyevin 70-ci illərdə həyata keçirdiyi tədbirlərin davamı kimi qiymətləndirilir.

"**Xalq qəzeti**".-2010.-1 may.-N 93.-S.4.

# MİLLİ İNKİŞAFIMIZIN MEMARI

**Natiq ƏLİYEV,**
sənaye və energetika naziri,
iqtisad elmləri doktoru,
Beynəlxalq Mühəndislik Akademiyasının müxbir üzvü

**Ümummilli lider Heydər Əliyevin yeni neft strategiyası Azərbaycanın bu gününün və gələcəyinin etibarlı təminatçısıdır**

**XX əsrdə Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi nadir şəxsiyyət, dünya şöhrətli siyasətçi Heydər Əliyevin bənzərsiz ömür yolu, zəngin ictimai-siyasi və dövlətçilik fəaliyyəti min illik tariximizin ən mühüm, şərəfli və böyük bir mərhələsini təşkil edir. Heydər Əliyevin tarixin ən çətin, məsuliyyətli məqamlarında xilaskarlıq simvoluna çevrilərək Azərbaycan xalqının ruhuna bir nəfəs kimi qayıdan, onu canı-qanı qədər sevərək hifz edən, milli mövcudluğunu yaşatmaq kimi ağır yükün altına çiyinlərini heç nədən çəkinmədən, mərdliklə verən xariqüladə şəxsiyyət olduğu aşkar görünür. Azərbaycanın müasir siyasi tarixinin bir çox səhifələri ulu öndər Heydər Əliyevlə, onun çoxtərəfli və genişmiqyaslı zəngin dövlətçilik fəaliyyəti ilə bağlı olmuşdur. Taleyin hökmü ilə iki dəfə xilaskarlıq missiyasını üzərinə götürərək hakimiyyətə gələn Heydər Əliyev hər dəfə Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqın köməyinə çatmış, ona dayaq olmuş, zamanın ağır məngənəsindən xilas etmişdir.**

1991-ci ildə müstəqillik əldə etdikdən sonrakı 3 il ərzində Azərbaycan xalqının mövcud iqtisadi və sosial potensialının böyük sarsıntılara məruz qalması və müstəqil dövlətçiliyini itirmək təhlükəsi ilə üzləşməsi ən yeni siyasi tariximizin acı həqiqətlərindən biridir. Xüsusilə, həmin illərdə respublikamız Xəzər dənizindəki milli sektorda neft layihələrini gerçəkləşdirmək, bu sahədə beynəlxalq əməkdaşlığa nail olmaq, təbii sərvətlərindən səmərəli şəkildə bəhrələnmək istiqamətində ciddi problemlərlə qarşılaşmışdı. Daxildə qeyri-sabit vəziyyətin, xaos və anarxiyanın hökm sürdüyü, xalqın etimad göstərdiyi siyasi hakimiyyətin olmadığı, cəbhə bölgəsində vəziyyətin getdikcə gərginləşdiyi bir şəraitdə xarici neft şirkətləri Azərbaycana sərmayə yatırmağı riskli hesab edirdilər. Həmçinin iqtisadiyyatın digər sahələri kimi, neft sənayesində də tənəzzül prosesi güclənir, hasilatın səviyyəsi getdikcə aşağı düşür, neftçilərin sosial durumu ağırlaşırdı. Əgər 1990-cı ildə 12513 min ton neft hasil olunmuşdusa, 1992-1993-cü illərdə bu göstərici 9563 min tona düşmüş, ümumilikdə neft hasilatı 21,2 faiz, qaz hasilatı 36 faiz azalmışdı.

Lakin həmin dövrdə respublikada yaranmış ağır sosial-iqtisadi vəziyyət təkcə bununla qurtarmırdı, 1993-cü ildən başlayaraq ulu öndər Heydər Əliyev vətənin sərvətlərini, xalqın varidatını dağıtmaq məqsədilə, hətta neftin taleyini öz əllərinə almaq istəyən qara qüvvələrə qarşı ciddi mübarizə aparmalı oldu. Dövlət müstəqilliyimiz real təhlükə qarşısında idi. Lakin xalqın tələbi və istəyi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev tərəfindən neft amilindən ağıl və məharətlə istifadə olunması yaşadığımız dövrün və zamanın nəbzinin düzgün tutulması, gələcək inkişafın əsas şərti olan hədəf nöqtəsinin fəth edilməsi kimi qiymətləndirilməlidir. Əslində, Azərbaycanın 1994-cü ilin sentyabrında ən çətin maneələrə, kənar təzyiqlərə sinə gərərək "Əsrin müqaviləsi"nin imzalanmasına nail olması yüksək siyasi iradənin və qətiyyətin təntənəsi olmaqla yanaşı, həm də XX əsrin 70-80-ci illərində bu istiqamətdə həyata keçirilən düşünülmüş siyasətin məntiqi nəticəsi idi.

Müstəqil Azərbaycan dövlətinin iqtisadiyyatının hərtərəfli inkişaf etdirilməsi naminə neft amilindən səmərəli istifadə olunması ulu öndərin hakimiyyətinin bütün dövrlərində uzaqgörən, düşünülmüş bir siyasət olaraq daim ön planda olmuşdur. Bu böyük şəxsiyyət Azərbaycan xalqının gələcəyini düşünərək hələ XX əsrin 70-80-ci illərində respublikamızda nəhəng neftayırma kompleksi sistemlərinin, müasir səviyyəli neft donanmasının yaradılmasına, keçmiş SSRİ-də analoqu olmayan Bakı Dərin Özüllər Zavodunun tikilməsinə nail olmuşdur ki, indi biz həmin illərdə görülmüş bu böyük işlərin ölkəmizin bugünkü iqtisadi həyatında oynadığı rolun canlı şahidləriyik. Ulu öndər Heydər Əliyev çox-çox sonralar həmin illəri xatırlayarkən demişdi: "1970-ci illərdə görülən işlər, yaradılan bu böyük iqtisadiyyat, sənaye potensialı və neft sənayesi sahəsində görülən işlər, yaranmış potensial Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əsasıdır. Bu gün bəyan etmək istəyirəm ki, o illərdə bu işləri görərkən mən məhz Azərbaycanın gələcəyini, bugünkü müstəqilliyi düşünürdüm. O işləri görərkən mən əmin idim ki, onlar Azərbaycanın sərbəst, müstəqil yaşaması üçün əsas yaradır".

Təsadüfi deyil ki, xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəldiyi ilk günlərdən başlayaraq ulu öndər ölkəmizin neft sənayesinin yenidən bərpası və inkişafı ilə daha yaxından məşğul olmağa başladı. Azərbaycanda siyasi sabitliyin təmin edilməsinə və dövlətçiliyin möhkəmləndirilməsinə nail olan ümummilli lider neft-qaz sahəsində fəaliyyət göstərən xarici şirkətləri ölkəmizə dəvət etdi. Məhz Azərbaycanda yaradılmış

əlverişli investisiya mühiti və dünya şöhrətli siyasətçi Heydər Əliyevin şəxsi nüfuzu sayəsində dünyanın neft istehsalçıları olan iri şirkətlərin rəhbərlərini danışıq masası ətrafına toplamaq mümkün oldu. Belə bir çətin və həlledici dövrdə Heydər Əliyevin atdığı ən mühüm addımlardan biri də xarici neft şirkətləri ilə danışıqlar prosesinin cənab İlham Əliyevə tapşırılması idi. Beləliklə də, həmin dövrdə cənab İlham Əliyev ulu öndər Heydər Əliyevin banisi olduğu yeni neft strategiyasının hazırlanmasının və uğurla həyata keçirilməsinin ən fəal iştirakçısı oldu.

Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış yeni neft strategiyasının məntiqi nəticəsi olaraq 1994-cü il sentyabrın 20-də dünyanın yeddi ölkəsini təmsil edən 11 xarici neft şirkəti ilə Xəzərin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair saziş imzalandı. Yeni neft strategiyası mövcud prinsiplər və tələblər üzərində qurulan Azərbaycan iqtisadiyyatının qarşılaşdığı nəhəng problemlərin ardıcıl həlli funksiyasını böyük uğurla yerinə yetirdi və uzaq perspektivləri əhatə edən nailiyyətlərin açarı oldu. Müstəqil Azərbaycanın çağdaş siyasi tarixinə qızıl hərflərlə yazılan, bütövlükdə dövlətin, xalqın gələcək taleyində, milli intibah prosesində həlledici rol oynamaqla sabit və tarazlı inkişafa ciddi zəmin yaradan taleyüklü bir hadisənin – “Əsrin müqaviləsi”nin imzalanması əslində, ulu öndər Heydər Əliyev tərəfindən müstəqil dövlət quruculuğunun əsas strateji istiqamətlərindən biridir. Təsadüfi deyil ki, bu saziş sonradan Azərbaycanın qapılarını bütün dünyanın üzünə açdı və növbəti illərdə dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 26 sazişin imzalanması da məhz bunun məntiqi nəticəsi sayılmalıdır. Bu gün keçmişə nəzər salarkən bir daha görürük ki, həmin dövrdə qarşıya qoyulan bütün məsələlər öz həllini tapmış və sözsüz ki, bunun əsas, ən başlıca səbəbi həmin illərdə ulu öndər tərəfindən uğurla, cəsarətlə həyata keçirilmiş yeni neft strategiyası olmuşdur.

2003-cü ildə ümummilli lider Heydər Əliyevin əbədiyyətə qovuşması xalqımızı dərindən sarsıtsa da, məhz bu böyük və unudulmaz şəxsiyyətin adı ilə bağlı olan iki tarixi hadisə Azərbaycanın bu gününün və gələcəyinin real təminatçısına çevrilmiş və hələ uzun illər bu tarixi missiyanı həyata keçirəcəkdir. Dərin kədər hissi ilə deməliyəm ki, ulu öndərə müəllifi və banisi olduğu Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılış mərasimində və “Şahdəniz” yatağından qaz hasilatının başlanılmasında iştirak etmək nəsib olmasa da, hər iki tarixi hadisə birmənalı olaraq Heydər Əliyevin əbədiyaşar adı ilə bağlıdır.

Yaxşı yadımdadır ki, “Əsrin müqaviləsi”nin imzalanmasından sonra hasil olunacaq milyonlarla ton xam neftin tamamilə təhlükəsiz, siyasi və iqtisadi cəhətdən məqbul variantlarla dünya bazarlarına çıxarılması kifayət qədər mübahisəli və çətin məsələlərdən biri olmuşdur. Lakin ümummilli lider Heydər Əliyevin prinsipial və qətiyyətli mövqeyi, nümayiş etdirdiyi diplomatik məharət, tərəfdaşı inandırmaq bacarığı sayəsində Azərbaycan neftinin nəqli marşrutları barədə optimal qərarlar qəbul edilmişdir. 1996-cı ilin yanvar ayında “Azərbaycan neftinin Bakı-Novorossiysk marşrutu ilə nəql edilməsi haqqında” Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında hökumətlərarası saziş imzalanmış, 1997-ci ilin oktyabr ayında həmin xətt istifadəyə verilmişdir. 1997-ci ildə isə Azərbaycan və Gürcüstan hökumətləri arasında neftin Qara dənizə çıxarılması üçün Bakı-Tbilisi-Supsa marşrutu ilə nəqli nəzərdə tutan saziş imzalanmışdır. 1999-cu il aprelin 17-də ölkə tarixində daha bir əlamətdar hadisə baş verdi. Azərbaycan, Gürcüstan və Ukrayna prezidentlərinin iştirakı ilə uzunluğu 850 kilometr, illik buraxılış qabiliyyəti isə 5 milyon ton olan Bakı-Supsa neft kəməri, habelə Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara daxil edildi.

Lakin bütün bunlara baxmayaraq, həmin dövrdə əsas ixrac neft boru kəmərinin hansı ölkələrin ərazisindən keçəcəyi aktual və ziddiyyətli məsələ olaraq hələ öz müsbət həllini tapmamışdı. İlk gündən etibarən Bakı-Tbilisi-Ceyhan neft kəməri üzərində israr edən Heydər Əliyev bunun siyasi və iqtisadi baxımdan ən optimal qərar olduğunu sübuta yetirmişdir. Beləliklə də, 1999-cu ilin noyabrında Türkiyənin İstanbul şəhərində, ATƏT sammiti çərçivəsində keçirilən görüşdə ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan prezidentləri tərəfindən “Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Neft Kəməri”nin çəkilişi haqqında dövlətlərarası müqavilə imzalandı.

Lakin o da yaxşı yadımdadır ki, həmin dövrdə bu kəmərin tikintisinə çox böyük müqavimət var idi. Hətta kəmərin iqtisadi cəhətdən sərfəli olmaması haqqında şayiələr yayılır və deyilirdi ki, Azərbaycan nefti kəmərin doldurulmasına kifayət etməyəcək, başqa ölkələrin nefti də buraya gəlməlidir. Lakin biz dəqiq bilirdik ki, bu şayiələrin, bu fikirlərin heç bir əsası yoxdur. Kəmərin 5 il ərzindəki fəaliyyəti nəticəsində indi artıq demək olar ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri maksimum gücünə yaxın olan həcmdə Azərbaycan neftini dünya bazarlarına çatdırır.

Ümummilli liderin siyasi iradəsinin təntənəsi olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin texniki-iqtisadi əhəmiyyətindən başqa, onun siyasi rolu da danılmazdır. Təsadüfi deyil ki, məhz buna görə də bu layihənin həyata keçirilməsində fenomen siyasətçi Heydər Əliyevin əvəzsiz xidmətlərini nəzərə alan layihə iştirakçıları

2004-cü ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə bu böyük tarixi şəxsiyyətin adının verilməsi barədə qərar qəbul etdilər.

Öz tarixi əhəmiyyəti baxımından heç də Bakı-Tbilisi-Ceyhan neft kəmərindən geridə qalmayan hadisə – Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi və "Şahdəniz" yatağından qazın hasilatı da ulu öndərin müstəqil dövlətçiliyimiz qarşısındakı ən başlıca, müqayisəolunmaz tarixi xidmətlərindən biridir. Məhz bu layihənin məntiqi nəticəsidir ki, Azərbaycan bu gün artıq nəinki neft, eyni zamanda, qaz ixrac edən ölkəyə çevrilmişdir. 1996-cı ildə yenə də ulu öndərin təşəbbüsü ilə bağlanmış "Şahdəniz" müqaviləsi artıq öz səmərəsini verməkdədir. Xüsusilə nəzərə alsaq ki, indiki dövrdə qaz amili ölkələrin enerji təhlükəsizliyini, enerji müstəqilliyini təmin edən əsas faktordur, onda bir daha görərik ki, 1996-cı ildə ulu öndər tərəfindən nə qədər düzgün, nə qədər müdrik qərar qəbul edilmişdir. Təbii ki, əgər həmin dövrdə ulu öndərin cəsarəti və qətiyyəti nəticəsində "Şahdəniz" qaz yatağı üzrə müqavilə imzalanmasaydı, təsəvvür etmək çətin deyil ki, Azərbaycan indi hansı ciddi problemlərlə üzləşə bilərdi.

Bu hadisənin ölkəmiz üçün nə qədər böyük tarixi əhəmiyyət kəsb etdiyinə əmin olmaqdan ötrü unutmamılıyıq ki, 2007-ci ilə qədər Azərbaycan qaz idxal edən ölkə idi. Lakin 2007-ci ildən başlayaraq, artıq respublikamız qazı idxal etmir, əksinə, ixrac edir. Bu gün Azərbaycan qazı Türkiyəyə, Gürcüstana, Yunanıstana, İrana və Rusiyaya ixrac olunur. Təbii ki, bütün bu dəyişikliklər çox böyük siyasi, iqtisadi və coğrafi-siyasi əhəmiyyət daşıyır.

Yeri gəlmişkən deməliyəm ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2006-cı ilin noyabr ayında "Azərbaycan və Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaqla bu sahənin beynəlxalq standartlara uyğunlaşdırılmasına start vermiş, ölkəmiz enerji təhlükəsizliyi sahəsində Avropa İttifaqının ən yaxın tərəfdaşlarından birinə çevrilmişdir. Xüsusilə, həmin memorandumdan irəli gələn və energetika sahəsində aparılacaq islahatlarla əlaqədar qanunvericilik bazasının Avropa Parlamentinın Direktivinə və Əsasnaməsinə uyğunlaşdırılması üzrə tədbirlərin həyata keçirilməsi Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin diqqət mərkəzindədir.

Onu da qeyd etməliyəm ki, 2006-cı ilin iyulunda Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, 2007-ci ilin əvvəlində isə Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin işə düşməsi respublikamızın dünya enerji bazarındakı rolunu əhəmiyyətli dərəcədə möhkəmləndirmişdir. Strateji əhəmiyyətli bu layihələr bir çox dövlətlərin iqtisadi maraq və mənafelərinin təminatı, habelə aktual məsələ kimi gündəmə gələn enerji təhlükəsizliyi probleminin həlli baxımından da əhəmiyyətlidir. Hazırda bəzi Qərb dövlətləri Xəzər hövzəsinə çıxış imkanı əldə etmək və neft idxalında alternativ imkanlar qazanmaqla birqütblü enerji asılılığından azad olmaq niyyətindədirlər. Bu amil Azərbaycanın Cənubi Qafqazdakı strateji mövqeyini və nüfuzunu daha da artırır, respublikamızın Avratlantik məkana inteqrasiyası üçün daha geniş imkanlar açır. Bir sıra mövcud layihələr də bu sahədə böyük potensialın olduğunu təsdiqləyir.

Azərbaycan qazının Avropa İttifaqı ölkələrinə genişmiqyaslı nəqli hazırda tikilməkdə olan Türkiyə-Yunanıstan-İtaliyanı birləşdirəcək Trans-Adriatik (və ya "Paseydon") qaz kəməri layihəsinin başa çatdırılması və "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsinin başlanması ilə reallaşa bilər.

Avropanı Xəzər hövzəsinin qazı ilə təmin etmək niyyəti güdən "Nabukko" qaz kəməri layihəsi maraqlı dövlətlərin iştirakı ilə ən yüksək səviyyədə dəstəklənmişdir və məlum olduğu kimi, Azərbaycan da bu sahədə öz rəyini bildirmişdir. Bu iki layihənin reallaşması Avropa ölkələrinə qaz nəqli infrakstrukturunun, ən əsası isə bu ölkələrin qazla təchizatı mənbəyinin diversifikasiyasının, deməli, bütünlükdə enerji təhlükəsizliyinin möhkəmlənməsidir.

Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsinə xidmət edə biləcək bir sıra beynəlxalq neft-qaz layihələrindən biri "Nabukko"dur. "Nabukko"nun planlaşdırılmış tam gücü ilə işləməsinə ən əsas yardımçı ola biləcək Mərkəzi Asiya ölkələrinin qaz resurslarının kəmərə çatdırılmasını Xəzərdən keçən Şərq-Qərb qaz nəqli layihəsi təmin edə biləcək. Avropa İttifaqı ilə Mərkəzi Asiya ölkələri qazın Avropaya nəqli razılığına gələcəkləri təqdirdə Azərbaycan öz infrakstrukturu və digər texniki imkanları ilə bu məsələdə yardımçı ola bilər. Odessa-Brodı neft kəmərinin Plotsk-Qdansk istiqamətində uzadılması ilə Xəzər regionu neftinin Azərbaycan-Qara dəniz Ukrayna-Polşa ərazilərindən keçərək Baltik dənizinə çatdırılmasının, bununla da, Avropa və dünya bazarlarında neft təchizatı mənbələrinin diversifikasiyasının gücləndirilməsi məqsədini daşıyan layihədə iştirakımızı iqtisadi cəhətdən əlverişli olduğu təqdirdə mümkün hesab edirik.

Trans-Xəzər qaz kəməri layihəsi reallaşdığı təqdirdə məhsulun Azərbaycan və Gürcüstan ərazilərindən keçərək Qara dəniz sahillərində müxtəlif istiqamətlərdə şaxələnməsini nəzərdə tutan məqsədlər çərçivəsində Ukrayna və Şərqi Avropa ölkələrini əhatə edən "Ağ axın" layihəsi də diqqətdən kənarda qala bilməz. Son görüşlərin və danışıqların nəticəsi olaraq Qərb ölkələrinə qazın nəqlinin alternativ marşrutlarının yaranma ehtimalı artmaqdadır. Belə ki, Azərbaycanın Rumıniya və Bolqarıstanla olan razılaşmalarına uyğun olaraq

qazımızın Gürcüstanın Qara dəniz sahillərinə çatdırılaraq sıxılmış və ya mayeləşdirilmiş formada gəmilər vasitəsilə həmin ölkələrə, oradan da Avropanın digər yerlərinə paylanmasının mümkünlüyü variantı üzərində işlər aparılır.

13 aprel 2010-cu ildə Buxarest şəhərində Azərbaycan, Gürcüstan və Rumıniyanın energetika nazirləri arasında "Mayeləşdirilmiş təbii qaz və onun nəqli sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması bu istiqamətdə irəliyə doğru atılmış ən mühüm addımlardan biridir. Memoranduma əsasən, tərəflər "Cənub dəhlizi" çərçivəsində Xəzər regionunu Avropa ilə birləşdirən enerji tranziti dəhlizinin inkişaf etdirilməsi niyyətlərini ifadə etmiş, qazın ticarəti və Rumıniyada yeraltı qaz anbarlarından istifadə olunması, enerji sahəsində fəaliyyət göstərən müvafiq qurumlar arasında əməkdaşlığın genişləndirilməsi imkanlarının araşdırılmasını qərara almışdır.

Bundan öncə, Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi ilə Bolqarıstanın İqtisadiyyat, Energetika və Turizm Nazirliyi arasında energetika sahəsində əməkdaşlığa dair 13 noyabr 2009-cu ildə imzalanmış memorandumda da Avropa İttifaqının enerji təhlükəsizliyinə xidmət edəcək prioritet istiqamətlər müəyyən edilmişdir. Bu da öz növbəsində, Azərbaycanın enerji qaynaqlarının və marşrutlarının şaxələndirilməsi siyasətinə verdiyi böyük önəmin ifadəsidir.

Azərbaycan Respublikası tərəfindən Avropada Qonşuluq siyasəti çərçivəsində qlobal enerji təhlükəsizliyinə yardım etmək məqsədilə bir sıra energetik sazişlər də imzalanmışdır və indi onlar həyata keçirilməkdədir. ARDNŞ (SOCAR) Rumıniya, Macarıstan, Bolqarıstan, Türkiyə, Gürcüstan, Ukrayna, Qazaxıstan və digər ölkələrdə öz nümayəndəliyini açmış və məqsədyönlü işlərin aparılması təşkil edilmişdir. Gürcüstanın Qara dəniz sahilində Kulevi neft və neft məhsulları terminalı tikilib istifadəyə verilmiş, Gürcüstanda regionların qazlaşdırılması və qazla təchiz edilməsi həyata keçirilir, 30 yanacaqdoldurma məntəqəsi fəaliyyət göstərir.

Bütün bunlar onu göstərir ki, bu gün Azərbaycan iqtisadiyyatı ümummilli lider Heydər Əliyevin yaratdığı təməl – yeni neft strategiyası üzərində hərtərəfli və dinamik inkişaf edir. Ölkə iqtisadiyyatındakı dinamik proseslər daha da güclənir, böyük sənaye potensialı yaranır, sosial problemlərin həlli istiqamətində görülən tədbirlər öz bəhrəsini verir, dövlətimizin Bakı-Tbilisi-Ceyhan və digər iri layihələrdəki iştirakdan əldə etdiyi uğurları artıq hər bir vətəndaş hiss etməkdədir.

Neft amilindən olduqca səmərəli şəkildə istifadə edilməsi nəticəsində hazırda Azərbaycan iqtisadiyyatı öz inkişafının çox mühüm mərhələsinə qədəm qoymuş, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən irimiqyaslı islahatlar, imzalanan fərman və sərəncamlar, qəbul edilən qərarlar, reallaşan dövlət proqramları sayəsində Azərbaycan iqtisadi artım göstəriciləri ilə dünyanın lider dövlətlərindən birinə çevrilmişdir. Bu gün ölkəmiz nəinki Qafqazda, həm də bütün bölgədə söz sahibidir, Azərbaycanın iştirakı olmadan bölgədə qlobal layihələrin həyata keçirilməsi qeyri-mümkündür.

Hələ 2003-cü ilin prezident seçkiləri ərəfəsində Heydər Əliyev siyasi kursunu davam etdirəcəyini bəyan edən cənab İlham Əliyev çox qısa müddətdə bütün sahələrin inkişafı istiqamətində böyük uğurlara imza atmaqla ulu öndərin siyasi varisi, onun güclü dövlətçilik, sosial-iqtisadi inkişaf kimi missiyalarının layiqli daşıyıcısı olduğunu təsdiq etmişdir. Bütün bunlarla yanaşı, Prezident İlham Əliyevə xas olan bir sıra müstəsna keyfiyyətlər – qətiyyətlilik, prinsipiallıq, zamanında sözünü demək, radikal tədbirlər görmək bacarığı dövlətin inkişafını, müxtəlif sferalarda qazanılan uğurları şərtləndirən əsas amillərdir. Heydər Əliyev kimi zəngin dövlətçilik və idarəçilik təcrübəsi olan siyasət dühasından bu cür keyfiyyətləri mənimsəyən Prezident İlham Əliyevin siyasi iradəsi Azərbaycan dövlətçiliyinin daha da qüdrətlənməsinin, ölkənin inkişafının leytmotivini təşkil edir.

Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasını böyük uğurla davam etdirən cənab İlham Əliyev ölkənin yanacaq-enerji kompleksinin qarşısında olduqca fundamental vəzifələr qoymuşdur. Xüsusilə, "Azərbaycan Respublikasında yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlər əslində, ulu öndərin yeni neft strategiyasının ruhunu, yeni dövr üçün qarşıda duran əsas vəzifələri ifadə edir. Belə ki, hazırda respublikamızın neft-qaz sənayesi öz inkişafının ən mühüm dövrlərindən birini yaşamaqdadır. Xüsusilə, qeyd etməliyəm ki, görülən tədbirlər nəticəsində "Azəri-Çıraq-Günəşli" neft-qaz, "Şahdəniz" qaz-kondensat və ARDNŞ-nin istismar etdiyi digər quru və dəniz yataqlarında işlənmənin elmi əsaslarla təşkil edilməsi sayəsində 2009-cu ildə Azərbaycanda 50,4 milyon ton neft, 23,6 milyard kubmetr qaz istehsal olunmuşdur. İxrac neftinin həcmi isə 41,6 milyon ton olmuşdur. Həmçinin, 2009-cu ildə "Şahdəniz" yatağından hasil olunmuş 6,25 milyard kubmetr qazın 85,6 faizi Türkiyəyə və Gürcüstana nəql edilmişdir. 2010-cu ildə respublika üzrə neft və qaz hasilatının tempi daha da yüksələcək və neft 52,4 milyon ton, qaz 28,5 milyard kubmetr səviyyəsinə çatdırılacaqdır. Sözsüz ki, bütün bunlar ulu öndər

Heydər Əliyevin ölkəmizin neft-qaz sənayesinin inkişafı ilə bağlı banisi olduğu siyasətin böyük yaradıcılıq və qətiyyətlə davam etdirilməsinin məntiqi yekunudur.

Bütün bu və digər sahələrdə olduğu kimi, Azərbaycanın mövcud milli elektroenergetika sisteminin əsası da məhz ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. XX əsrin 70-ci illərində ulu öndərin birbaşa təşəbbüsü və tapşırığı ilə Azərbaycanda iki böyük elektrik stansiyası inşa edilmişdir ki, həmin stansiyalar bu gün də ölkəmizin milli elektroenergetika sistemi üçün əvəzsiz rol oynayır. 1975-ci ildə inşasına başlanılmış "Azərbaycan DRES" və "Şəmkir SES"in tikilməsi hesabına respublikanın enerji sisteminin gücü iki dəfədən çox artırılmışdır. Həmin illərdə ümummilli lider Heydər Əliyevin göstərişi ilə 330 kV-luq Əli Bayramlı İES, Ağdam-Gəncə-Ağstafa, Əli Bayramlı-Yaşma-Dərbənd-5-ci Mingəçevir, 500 kV-luq 1-ci və 2-ci Abşeron, Muxramis-Vəli və s. elektrik verilişi xətləri, 330/110/20 kV-luq "Yaşma", "Gəncə", "Ağstafa", 330/110/10 kV-luq İmişli, 500/330/220 kV-luq Abşeron, 220/110/10 kV-luq Hövsan, Nizami, Müşfiq, Səngəçal, Masallı, Ağsu, Babək və s. qovşaq yarımstansiyaları istismara verilmişdir.

Həmçinin XX əsrin 70-ci illərinin sonunda Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Kür çayının üstündə yeni bir obyektin – Yenikənd Su Elektrik Stansiyasının təməli qoyulmuşdur ki, bu da ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə hazırlanan möhtəşəm energetika planının tərkib hissəsi idi.

Etiraf etməliyik ki, bütün sahələrdə olduğu kimi, ulu öndər Heydər Əliyevin siyasətini uğurla həyata keçirən Prezident İlham Əliyev də ölkə iqtisadiyyatının və əhalinin enerji resurslarına olan tələbatının daha dolğun ödənilməsini təmin etmək üçün ardıcıl və qətiyyətli addımlar atır. Heydər Əliyevin milli elektroenergetika sahəsində təməlini qoyduğu dövlət siyasətinin uğurla həyata keçirilməsi nəticəsində Azərbaycan artıq öz ehtiyaclarını ödəməklə bərabər, elektrik enerjisi ixrac edən ölkəyə çevrilmişdir. Cənab İlham Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində bu illər ərzində ölkədə 9 elektrik stansiyası tikilmişdir ki, bunların da əksəriyyəti regionların payına düşür. Həmçinin Naxçıvan Muxtar Respublikasında yeni tikilmiş elektrik stansiyasının hesabına artıq Türkiyəyə elektrik enerjisinin ixracına başlanmışdır.

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ölkə sənayesinin inkişafı üçün də yeni bir tarixi dövrün əsasını qoymuşdur. Belə ki, təkcə 1969-1982-ci illərdə Azərbaycanda 250-dən çox zavod, fabrik, istehsalat sexləri istifadəyə verilmişdir. Təsadüfi deyil ki, Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə Azərbaycanda istehsal olunan 350 adda sənaye məhsulu dünyanın 65 ölkəsinə ixrac olunurdu.

Həmçinin Bakı elektrik maşınqayırma, məişət soyuducuları zavodu, radiozavod, robot zavodu, elektron hesablayıcı maşınları zavodu, Sumqayıt kompressor zavodu, Gəncə "Büllur" zavodu, "Azon", "Alunit" zavodları və digər sənaye obyektləri ümummilli liderin şəxsi təşəbbüsləri ilə inşa edilmişdir. Heydər Əliyevin qayğısı və diqqəti sayəsində beş zavodda köhnə avadanlıq yenisi ilə əvəz olunmuş, "Bakı fəhləsi" zavodu yenidən qurulmuş, Bakı Dərin Özüllər Zavodunun, Yeni Bakı Neftayırma Zavodunda yüksək texnologiyaya malik ELOU-AVT qurğusunun, Bakı kondisioner və Sumqayıt kompressorlar zavodlarının, Sumqayıtda və Naxçıvanda iri trikotaj fabriklərinin, polimer tikinti materialları və evtikmə kombinatlarının inşası Azərbaycanın yaxın gələcəkdə daha böyük yüksəlişinə xidmət edir.

Hər bir sahədə Heydər Əliyevin siyasi kursunu ardıcıllıqla həyata keçirən Prezident İlham Əliyev də ölkənin sənaye infrastrukturunun yenidən qurulması, özəl sektorun yüksəlişi və milli iqtisadiyyatın neft amilindən asılılığının qeyri-neft sektorunun inkişafı hesabına aradan qaldırılması istiqamətində kompleks tədbirlər həyata keçirməkdədir. Təsadüfi deyil ki, hazırda Azərbaycanda sənaye potensialı ölkə iqtisadiyyatında milli gəlir baxımından əhəmiyyətli yerlərdən birini tutmaqdadır. Belə ki, təkcə 2009-cu ildə sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi ümumi daxili məhsulun 50 faizindən çoxunu təşkil etmişdir.

Bütün bunlar bir daha təsdiqləyir ki, ümummilli lider Heydər Əliyevin zəngin və tükənməz siyasi irsinə, dövlətçilik ənənələrinə və xalqımızın iradəsinə söykənən Prezident İlham Əliyev görkəmli, bacarıqlı və peşəkar dövlət xadimi kimi ötən illər ərzində dövlətçiliyimizi daha uca zirvələrə yüksəltmiş və ümummilli liderin arzu və istəklərinin həyata keçirilməsini təmin etməyə nail olmuşdur. Bu isə bir daha ulu öndərin əbədiyaşar ideyalarının real həyatda özünü bir daha təsdiqlədiyini nümayiş etdirir.

"**Azərbaycan**".-2010.-1 may.-N 93.-S.4.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİ

**Əli HƏSƏNOV,**
Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının
ictimai-siyasi məsələlər şöbəsinin müdiri,
YAP İdarə Heyətinin üzvü

**XX əsrin sonunda müstəqillik əldə etməsi Azərbaycanın həm dövlət quruluşunda əsaslı dəyişikliklərin həyata keçirilməsini, yeni sosial-iqtisadi və ictimai-siyasi münasibətlərin formalaşmasını şərtləndirdi, həm də ona davamlı olaraq öz təhlükəsizliyinin qayğısına qalmaq kimi daimi bir məsuliyyət bəxş etdi. Müstəqil dövlətçilik maraqlarının təmin edilməsi tələbləri, yeni geosiyasi aktorlarla birbaşa ünsiyyətin yaranması, tamamilə fərqli bir təhlükəsizlik mühitinə daxil olması, iqtisadi, ictimai, siyasi münasibətlərin demokratiya, vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı yoluna çıxması və s. yeniliklər Azərbaycanda şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinə dair yeni-yeni yanaşmaların, proqram və konsepsiyaların yaradılması zərurətini ortaya çıxardı. Bütün bunlar Azərbaycan hökumətini və onun müvafiq məsul şəxslərini ölkənin milli maraqlarının və təhlükəsizliyinin əsas vəzifə və tələblərinə uyğun gələn Milli Təhlükəsizlik Konsepsiyasını (MTK) formalaşdırmağa məcbur etdi.**

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin nəzəri əsaslarını müəyyən edən təhlükəsizlik konsepsiyasının ərsəyə gəlməsi və təhlükəsizlik siyasətinin tam formalaşdırılması üçün ölkənin müvafiq qurumlarına düz 15 il lazım gəldi. MTK-nın qəbul olunmasından əvvəl Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 2004-cü ildə “Milli təhlükəsizlik haqqında” qanun qəbul olunmuş və respublika Prezidentinin 2004-cü il 29 iyun tarixli sərəncamı ilə təsdiq olunmuşdur.

Bu qanun özündə Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin milli təhlükəsizlik təliminin və siyasətinin əsas prinsiplərini, məqsəd və vəzifələrini əks etdirmiş və gələcək MTK-nın yaradılmasını şərtləndirmişdir.

Milli Təhlükəsizlik Konsepsiyası ölkənin milli təhlükəsizlik siyasətinin həyata keçirilməsində uzunmüddətli strateji vəzifə və prioritetləri özündə əks etdirən konseptual sənəd hesab olunur. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası Azərbaycan Prezidentinin 2007-ci il 23 may tarixli sərəncamı ilə təsdiq olunmuş və fəaliyyət üçün əsas götürülmüşdür.

Azərbaycan Prezidenti İlham Əliyev ölkənin milli maraqlarla bağlı dövlət siyasətini formalaşdırarkən bir çox iqtisadi, siyasi, ideoloji, coğrafi, mədəni və digər amilləri, daxili siyasi maraqları, müxtəlif milli, etnik, sosial-siyasi və s. qüvvələrin mənafelərini, beynəlxalq aləmin mümkün reaksiyalarını, ulu öndər Heydər Əliyevin təhlükəsizliklə bağlı zəngin nəzəri irsini nəzərə alaraq, ölkə vətəndaşlarının milli iradəsini və dövlətin ali təhlükəsizlik maraqlarını rəhbər tutmuşdur.

Girişdən, dörd bölmədən və yekun müddəalardan ibarət olan MTK XXI əsrdə ölkənin milli maraqlarının təmin olunması ilə bağlı hakimiyyət strukturlarının bəzi fəaliyyət istiqamətlərini müəyyən edir və milli təhlükəsizlik sahəsində dövlət siyasətinin normativ-hüquqi bazasını təkmilləşdirir.

Azərbaycan Respublikasının müstəqilliyə qovuşduqdan sonra – 1991-ci ildən başlayaraq milli təhlükəsizliyinin əsas məqsədləri, milli maraq çərçivəsinin müəyyən edilməsi və təmin olunması, milli təhlükəsizlik siyasətinin vəzifələrinin, mexanizmlərinin, metod və vasitələrinin tapılması və s. haqqında müxtəlif dövlət qurumları səviyyəsində, akademik dairələrdə və ictimai-siyasi institutlarda rəsmi və qeyri-rəsmi müzakirələr başlandı. Əlbəttə, milli inkişaf strategiyasının, milli maraq dairəsinin, ölkənin təhlükəsizliyinin əsaslarının müəyyən olunması və lazımi səviyyədə təşkili, onun təhlükəsizlik çərçivəsinin, geosiyasi kodunun yaradılması və milli təhlükəsizlik siyasətinin həyata keçirilməsi və s. mühüm dövləti vəzifələrin həlli – yenicə müstəqillik qazanmış və milli təhlükəsizlik sistemi hələ kifayət qədər möhkəmlənməmiş bir dövlət üçün düşünüldüyü qədər də asan iş deyildi.

Qeyd edək ki, keçmiş Sovetlər Birliyinin dağılması bir çox nəzəri-hüquqi anlayışlarda olduğu kimi, “təhlükəsizliyin təmin olunması” ifadəsinə də əsaslı düzəlişlər etdi. Məlum oldu ki, ümumiyyətlə “təhlükəsizlik” anlayışı mürəkkəb sosial hadisə kimi konkret-tarixi xarakter daşıyır və “təbiət-insan-cəmiyyət” sistemində qarşılıqlı təsirin digər formaları və istiqamətləri ilə sıx bağlıdır.

Dövlətin təhlükəsizlik siyasətinin əsas məqsədi xarici aləmlə təmas zamanı ölkənin həyati əhəmiyyətli milli maraqlarını qorumaq və yüksək səviyyədə təmin etməkdən ibarətdir. Dövlətin milli maraqları, milli təhlükəsizliyi və planetar nüfuzu həm beynəlxalq hüququn subyekti kimi dünyada nəzərə alınır, beynəlxalq qurumlar tərəfindən qorunur, həm də dövlətin özünün daxili və xarici resurslarının köməyi ilə təmin olunur.

**Təhlükəsizlik**

**siyasətinin əsas**
**məqsəd və vəzifələri**

Azərbaycan dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, vətəndaşlarının hüquqlarının, cəmiyyətinin milli və vətəndaş birliyinin, ölkənin sabit inkişafının tələb etdiyi ən ümdə dövləti vəzifələr və onların təminatı yolları, mövcud milli resursların bu işə səfərbər edilməsi proqramı və bəhs olunan sahədə məsuliyyətli dövlət idarəçiliyinin yaradılması onun milli təhlükəsizlik siyasətinin ən ali məqsədini təşkil edir.

Hər bir dövlət kimi Azərbaycan da xaricdən müdaxilə olmadan öz dövlət idarəçiliyini yaratmaq, onun strateji inkişaf yolunu seçmək, ölkənin konstitusiya quruluşunun, daxili həyatının, cəmiyyətin və hər bir vətəndaşın təhlükəsizliyini, əhalinin firavan həyatını təmin etmək, milli- vətəndaş birliyini və ictimai-siyasi sabitliyi qorumaq və s. kimi strateji vəzifələr həyata keçirir. Bu vəzifələrin reallaşdırılması onun milli təhlükəsizliyinin ikinci əsas məqsəd və vəzifəsini təşkil edir.

Milli təhlükəsizlik siyasəti beynəlxalq hüquq normalarına, ölkə konstitusiyasına, daxili qanunlara və prinsiplərə, insanların, cəmiyyətin və dövlətin maraqları arasında tarazlığın gözlənməsinə, həmin tərəflərin qarşılıqlı məsuliyyətinə əsaslanmalıdır. Mürəkkəb geosiyasi məkanda yerləşən Azərbaycan Respublikası müstəqilliyə qovuşduğu andan hüquqi və dünyəvi dövlət, demokratik cəmiyyət və siyasi plüralizm yolunu öz inkişafının və konstitusiya quruluşunun əsası elan edərək, bölgə ölkələri ilə sülh və mehriban qonşuluq şəraitində, dünyanın qabaqcıl siyasi, iqtisadi və təhlükəsizlik sistemləri ilə bərabərhüquqlu əməkdaşlıq etmək və bu strukturlara inteqrasiya olunmaq xətti yürüdür. Bu vəzifələr Azərbaycandan həm öz daxili təhlükəsizliyini təmin edən, həm də regionun və dünyanın güc mərkəzləri, geosiyasi aktorları, transmilli strukturları ilə münasibətlərə dair xüsusi düşünülmüş və ardıcıl həyata keçirilən Milli Təhlükəsizlik Konsepsiyasının reallaşdırılmasını tələb edirdi. Bu konsepsiyanın yaradılması və ondan irəli gələn məsələlərin həlli ölkənin milli təhlükəsizlik siyasətinin digər əsas məqsəd və vəzifələrindən birini təşkil edirdi.

Azərbaycanın xarici siyasətinin və geosiyasi hədəflərinin müəyyənləşməsində milli təhlükəsizlik məsələləri aparıcı yer tutur və onun əsas prioritetlərini təşkil edir. Bundan irəli gələrək ölkənin milli təhlükəsizliyin təmin olunması, suverenliyinin və ərazi bütövlüyünün qorunub saxlanması, dünya birliyində nüfuzunun möhkəmlənməsi də onun həm xarici siyasətinin, həm də milli təhlükəsizliyinin əsas prioritet istiqamətlərindən və məqsədlərindən birini təşkil edir.

Milli təhlükəsizlik siyasəti təkcə ölkənin məxsusi maraqları və onların təmin edilməsi ilə deyil, həm də yerləşdiyi regionda və dünyada təhlükəsizlik mühitinin yaxşılaşmasına xidmət göstərməlidir. Bu anlamda Azərbaycanın təhlükəsizlik siyasətinin məqsədi və istiqamətləri sırasına həm də sabit, ədalətli və demokratik dünya mühiti naminə beynəlxalq proseslərə müsbət təsir göstərmək, dövlətlər arasında bərabərhüquqlu, qarşılıqlı-faydalı əməkdaşlıq münasibətlərinə töhfə vermək, milli mənafelərin təmin olunması məqsədilə dövlətlərlə və dövlətlərarası birliklərlə üst-üstə düşən ortaq maraqlar tapmaq və bunun əsasında ikitərəfli, çoxtərəfli tərəfdaşlıq münasibətləri formalaşdırmaq kimi məsələlər də daxildir.

Müasir beynəlxalq aləmdə Azərbaycanı dinamik inkişaf edən, insan hüquq və azadlıqlarını qoruyan, sosial yönlü siyasət yürüdən, bazar iqtisadiyyatı və liberal biznes mühiti qaydalarına hörmətlə yanaşan, sabit iqtisadi, siyasi, sosial, milli, dini və vətəndaş cəmiyyətinə malik olan və tam müstəqil xarici siyasət yürüdən demokratik bir dövlət kimi tanıtmaq yolu ilə, onun vətəndaşlarının və xaricdə yaşayan azərbaycanlıların hüquqlarını müdafiə etmək və s. milli maraqları reallaşdırmaq mümkündür. Odur ki, ölkənin müsbət beynəlxalq imicinin formalaşdırılması vəzifəsi də milli təhlükəsizliyin və xarici siyasətin əsas istiqamətlərindən hesab olunur.

Təbii ki, müasir dünyada baş verən fundamental və dinamik dəyişikliklər Azərbaycan Respublikasından və onun vətəndaşlarının maraqlarından yan keçmir. Buna görə də ölkəmizin milli təhlükəsizlik və xarici siyasəti beynəlxalq aləmdə baş verən hadisələrin axarını və transmilli qloballaşma prosesinin xüsusiyyətlərini nəzərə almalı və bu sahədə mövcud olan bütün vasitələrdən istifadə etməlidir. Məsələn, Azərbaycan hesab edir ki, XXI əsrdə beynəlxalq münasibətlərin tənzimlənməsinin və münaqişələrin həllinin koordinasiya mərkəzi BMT olmalıdır. Odur ki, beynəlxalq aləmdə baş verən siyasi və iqtisadi dəyişikliklərə məqsədyönlü şəkildə adaptasiya olunması məqsədilə, BMT-də rasional islahatların aparılmasını ölkəmiz daim dəstəkləməlidir. Yaxud da, Azərbaycan bir çox nüfuzlu beynəlxalq və regional təşkilatların üzvü kimi dünyanın aparıcı dövlətləri ilə münasibətləri inkişaf etdirir, dünya iqtisadiyyatına və siyasətinə sürətlə inteqrasiya olunur, Cənubi Qafqaz regionu ilə bağlı beynəlxalq münasibətlərin arxitekturasının formalaşmasına həlledici təsir göstərir. Eyni zamanda ölkəmiz həm milli, həm də beynəlxalq təhlükəsizliyin təmin olunması üçün bərabərhüquqlu qarşılıqlı hörmət və faydalı əməkdaşlıq prinsiplərinə əsaslanan sabit dünya nizamının mövcud olmasına çalışır. Çünki, bu

halda dünya birliyinin hər bir üzvünün siyasi, hərbi, iqtisadi, informasiya, humanitar və digər sahələrdə etibarlı və bərabər təhlükəsizliyini təmin etmək mümkündür.

**Milli təhlükəsizliyin əsasları**

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin əsasını dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, milli maraqlarının, vətəndaşlarının hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunması və təmin edilməsi təşkil edir.

Milli təhlükəsizliyin əsas obyektlərinə vətəndaş – onun hüquq və azadlıqları, cəmiyyət – onun maddi və mənəvi dəyərləri, dövlət – onun müstəqilliyi, suverenliyi, konstitusiya quruluşu və ərazi bütövlüyü daxildir.

Milli təhlükəsizliyin əsas subyektlərinə isə insanların, cəmiyyətin və dövlətin təhlükəsizliyi maraqlarının və tələbatlarının təmin edilməsi məqsədilə yaradılmış dövlət hakimiyyəti orqanları və digər təhlükəsizlik institutları aid edilir.

**Təhlükəsizlik mühiti və beynəlxalq imic**

Hər bir ölkənin milli təhlükəsizlik siyasətinin effektivliyi və müvəffəqiyyəti ölkənin təhlükəsizlik mühitindən və beynəlxalq imicindən asılıdır. Dövlətin suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, milli maraqlarının təminatı, davamlı inkişafı, vətəndaşlarının sosial-siyasi hüquqlarının və rifah halının təmin olunması və milli-mənəvi dəyərlərinin qorunmasına təsir edən əsas amillər məhz təhlükəsizlik mühiti və beynəlxalq imicdir.

Azərbaycan müstəqil bir dövlət olaraq beynəlxalq hüququn subyekti kimi, müasir dünyanın bir hissəsidir; BMT, ATƏT, Avropa Şurası, İKT, MDB, GUAM, EKO, TDB və s. kimi böyük və kiçik beynəlxalq, regional təşkilatların üzvüdür. Siyasi, sosial-mədəni baxımdan nüfuzlu beynəlxalq strukturlara hərtərəfli inteqrasiya xətti yürüdür, çoxsaylı beynəlxalq konvensiyalara qoşulmuşdur. Bütün bunlar həm onun təhlükəsizlik mühitinə, həm də beynəlxalq imicinin müəyyənləşməsinə bilavasitə təsir göstərir.

Azərbaycan mühüm coğrafi və geosiyasi əhəmiyyəti olan bir regionda yerləşir. Onun tutduğu geosiyasi, geoiqtisadi və geostrateji mövqe, yürütdüyü daxili və xarici siyasət dünyanın və regionun aparıcı dövlətlərinin maraqlarına toxunur və onların diqqətindən kənarda qalmır. Bu reallıq həm bölgənin, həm də ölkənin daxili təhlükəsizlik mühitinə birbaşa təsir göstərir. ABŞ və Qərbi Avropanın böyük ölkələri, regionun Rusiya, Çin, Türkiyə, İran kimi böyük dövlətləri və b. geosiyasi aktorlar Cənubi Qafqazda, Orta Asiya və bütövlükdə Avrasiyada öz maraqları çərçivəsində fəal geosiyasət reallaşdırır ki, bu da Azərbaycanın həm regional, həm də beynəlxalq maraqlarından yan keçmir.

Azərbaycanın hərbi-geostrateji durumu, bu sahədə yürütdüyü siyasət və atdığı addımlar həm Qərbin, xüsusilə ABŞ, AB və NATO-nun, həm də Rusiya, İran və Çin kimi region ölkələrinin diqqət mərkəzində dayanır. Regionun Rusiya, İran və Türkiyə kimi güclü ölkələri ilə həmsərhəd olması, dünyada və bölgədə balanslı, tarazlaşdırılmış xarici siyasət aparması, heç bir hərbi-strateji bloka üzv olmaması, əksər ölkələrlə tərəfsiz əməkdaşlıq etməsi və s. geosiyasi addımları onun təhlükəsizlik mühitinə və beynəlxalq imicinə təsirsiz ötüşmür. Bu mənada Azərbaycanın davamlı olaraq müstəqillik illərində yürütdüyü dinc tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq siyasəti ona “regionda geosiyasi gərginliyi azaldan və bərabərhüquqlu əməkdaşlıq mühiti yaradan konstruktiv dövlət” imici qazandırmışdır. Bu amil dünya birliyində ölkəmizə etibarlı və sözübütöv tərəfdaş imici qazandırmış, Xəzər hövzəsi və Cənubi Qafqazda onun reallaşdırdığı transmilli layihələrə diqqəti artırmış və bölgədəki geosiyasi roluna ciddi maraq yaratmışdır.

Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarına malik olması və öz milli sərvətlərini insanların rifahı, dünyada sülhün və iqtisadi inkişafın təmin olunması naminə istifadə etməsi, bəşəriyyətin XXI əsrdə artan enerji və nəqliyyat-kommunikasiya ehtiyaclarını təmin etmək məqsədi güdən nəhəng transmilli enerji layihələrinin əsas təşəbbüskarı olması onun müsbət imicini yüksəltmiş və dünyanın əsas güc mərkəzlərinin diqqətini ona cəlb etmişdir. “Əsrin müqaviləsi” çərçivəsində 1994-cü ildən etibarən çoxsaylı xarici tərəfdaşlarla birgə Azərbaycan Xəzər dənizində özünün zəngin neft və qaz yataqlarının istismarına başladı. ABŞ, Böyük Britaniya, Fransa, Norveç, Türkiyə, İtaliya, Yaponiya, Rusiya, Səudiyyə Ərəbistanının nəhəng şirkətləri ilə neft və qaz müqavilələri bağladı və transmilli enerji layihələri reallaşdırıldı.

Bütün bunlarla yanaşı, Azərbaycanın bir çox əhəmiyyətli enerji, nəqliyyat-kommunikasiya və tranzit yükdaşıma – Bakı-Tbilisi-Ceyhan əsas neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Avropa-Qafqaz-Asiya nəqliyyat-kommunikasiya dəhlizi (TRASEKA və Böyük İpək yolu), Bakı-Tbilisi-Qars dəmiryolu və s. layihələrində iştirakı onun nəinki təkcə regiondakı geoiqtisadi əhəmiyyətini artırdı, həm də beynəlxalq enerji-nəqliyyat təhlükəsizliyinin təmin olunmasında mühüm rolu olan ölkələrdən birinə çevirdi. Məsələn, mərkəzində Azərbaycanın dayandığı TRASEKA layihəsinin Hindistandan və Çindən başlayaraq Portuqaliya və İspaniyaya qədər böyük bir coğrafi ərazidə yerləşən Avropa və Asiya dövlətlərini, Cənub-Şərqi Asiyadan Avropa İttifaqına qədər nəhəng iqtisadi güc mərkəzlərini əhatə etməsi və ən əlverişli marşrutla birləşdirməsi regional və

beynəlxalq təhlükəsizliyin təmin olunmasına böyük töhfə oldu. Lakin ölkəmizin yerləşdiyi əhəmiyyətli coğrafi və geomühit ona mühüm geosiyasi üstünlüklər və arzuolunan tərəfdaş imici qazandırmaqla yanaşı, həm də ona ciddi rəqiblər qazandırdı, bir sıra özünəməxsus təhlükəsizlik problemləri və təhdidləri ilə üzləşdirdi.

**Azərbaycan Respublikasının milli maraqları və onun çərçivəsi**

Azərbaycan Respublikasının əsas inkişaf prioritetləri ilk növbədə onun milli maraqlarının formalaşması və təmin olunması ilə bağlıdır. Müasir dövrdə ölkələrin milli inkişaf tələbləri onların daxili və xarici siyasətini – sosial-iqtisadi və siyasi-hüquqi inkişafının vəzifələrini və səviyyəsini, respublikanın coğrafi və geosiyasi mövqeyini, milli-tarixi ənənələrinin qorunmasını və inkişaf etdirilməsini, dövlətin suverenliyinin və milli təhlükəsizliyinin təmin olunmasını və s. çoxsaylı vəzifələrin həyata keçirilməsini tələb edir. Bütün bunlar öz əksini geosiyasət elminin "milli maraq" kateqoriyasında tapır.

Milli maraqlar öz məzmununa görə ictimai maraqlardan bir qədər fərqlənir. Belə ki, ictimai maraqlar dövlətin daxili siyasətini müəyyənləşdirən qanunlar sistemi ilə bağlıdır və onunla tənzimlənir. Milli maraqlar isə əsasən dövlətin xarici siyasət sahəsinə aiddir və beynəlxalq aləmlə təmasda onun rəsmi fəaliyyətinin əsasını təşkil edir. Lakin bu fərqlərə baxmayaraq hər bir ölkənin ictimai və milli maraqları bir-birini tamamlayır. Çünki həm beynəlxalq aləmin və ölkələrarası münasibətlərin təsiri ictimai maraqlardan yan keçmir, həm də milli maraqlar ölkədəki sosial-iqtisadi vəziyyətdən, ictimai-siyasi sabitlikdən və mənəvi-əxlaqi mühitin sağlamlığından bilavasitə asılı olur. Keçid dövrünü yaşayan ölkələrdə isə ictimai və milli maraqlar arasındakı qarşılıqlı təsir və birbaşa bağlılıq özünü daha qabarıq şəkildə büruzə verir. Bütün bu formulaları Azərbaycan Respublikasına da şamil etmək olar.

Azərbaycanın daxili siyasətində vətəndaşların əsas maraqlarını hakimiyyət qurumları, ictimai-siyasi təşkilatlar və digər yerli strukturlar ifadə edirsə, milli maraqları beynəlxalq aləmdə və ölkə daxilində əsasən Azərbaycan dövləti və onun müvəkkil etdiyi qurumlar həyata keçirir.

Azərbaycan Respublikasının milli maraq çərçivəsi dünya ölkələrinin yuxarıda sadalanan universal təhlükəsizlik ölçülərini nəzərə almaqla yanaşı, həm də məxsusi təhlükəsizlik təhdidlərinə əsaslanan bəzi xarakterik xüsusiyyətləri ilə seçilir.

Azərbaycanın milli təhlükəsizliyinin bu gün üçün ən əsas problemi və hərbi-geostrateji vəzifəsi illərdir uzanan və sonu görünməyən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq, ölkənin pozulmuş ərazi bütövlüyünü və suveren dövlət hüquqlarını bərpa etmək və bu fonda regionda sülhü və dinc əməkdaşlıq mühitini təmin etməkdən ibarətdir. Ölkənin xarici aləmlə bütün təmaslarında, ikitərəfli və çoxtərəfli münasibətlərində bu problemin müzakirəsi və beynəlxalq hüquq normaları çərçivəsində həlli məsələsi daim diqqət mərkəzində saxlanılır. Bu problem həm də nəinki təkcə Azərbaycana, onun müstəqil dövlət quruculuğu prosesinə, vətəndaşlarının sabit həyat şəraitinə ciddi zərbə vurmuş, eyni zamanda həm də 15 ildən artıq bir dövrdə regionda (Qafqaz, Xəzər-Qara dəniz hövzəsində) dövlətlərarası iqtisadi, siyasi və mədəni əlaqələri pozmuş, ölkələri və xalqları qarşıdurmaya sürükləmiş, onların bir-biri ilə və beynəlxalq aləmlə münasibətlərinə, regional və beynəlxalq inteqrasiya proseslərinə çox ciddi mənfi təsir göstərmişdir. Hazırda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi həm Cənubi Qafqazda, Avrasiya və Avropada, həm də bütövlükdə qlobal dünyada həllini gözləyən ən çətin və mürəkkəb problemlərdən biri hesab olunur.

Azərbaycanın milli təhlükəsizliyinin həyati əhəmiyyət kəsb edən ikinci əsas məsələsi malik olduğu təbii sərvətləri, respublikanın karbohidrogen və enerji ehtiyatlarını (xüsusən Xəzər dənizinin Azərbaycana aid olan milli sektorunda istehsal olunan nefti və təbii qazı) xarici müdaxilə olmadan, özünün müəyyən etdiyi xarici tərəfdaşlarla birgə işləmək, heç kimdən asılı olmayan, təhlükəsiz və əlverişli yollarla dünya bazarlarına çıxarmaq və əldə olunan gəliri ölkənin inkişafına və digər ehtiyaclarına yönəltməkdən ibarətdir.

Bundan başqa, Azərbaycanın milli maraq çərçivəsinə həm də:

Ş Ermənistanın işğalının nəticələrinin aradan qaldırılması, öz yurdundan didərgin salınmış qaçqın və köçkünlərin geri qaytarılması və məskunlaşdırılması;

Ş işğalın bir daha təkrarlanmaması üçün zəruri təhlükəsizlik tədbirlərinin görülməsi, o cümlədən milli ordunun lazımi hərbi hazırlıq vəziyyətinə gətirilməsi;

Ş Azərbaycan xalqının milli birliyinin və varlığının, bu xalqa məxsus əsrlər boyu formalaşmış adət-ənənələrin, milli-mənəvi dəyərlərin, dilin, dinin qorunması, yaşadılması və ümumbəşəri dəyərlər hesabına zənginləçdirilməsi;

Ş ölkədə hüquq normaları və qanunçuluğun, şəxsiyyət azadlığı və hüquqlarının dönmədən təmin olunması, mövcud ictimai-siyasi sabitliyin, vətəndaş cəmiyyəti normalarının, tolerant etnik və dini mühitin qorunması və inkişafı, separatçılıq, siyasi, etnik və dini ekstremizmin aradan qaldırılması;

Ş dünya azərbaycanlılarının birlik və həmrəyliyinin təmin edilməsi, onların vətənpərvərlik hisslərinin gücləndirilməsi, azərbaycançılıq ideyası ətrafında birləşdirilməsi, dünyada yaşayan soydaşlarımızın milli və

vətəndaş hüquqlarının təmin edilməsi və s. problemlər də Azərbaycanın milli təhlükəsizliyini təhdid edən spesifik faktorlar hesab oluna bilər.

Məkan əlamətlərinə görə Azərbaycanın milli maraq çərçivəsi:

1. Ölkənin öz ərazisi daxilində təzahür edən;

2. Regional münasibətlərdə, yaxud beynəlxalq məkanda, qonşu ölkələrlə təmasda, hər hansı hökumətlərarası təşkilatlar çərçivəsində və s. şəklində təmsil olunan maraqlar kimi qruplaşdırmaq olar.

Milli maraqlar əsas və yaxud ikinci dərəcəli, daimi, yaxud əvəzlənən, uzunmüddətli, yaxud qısamüddətli maraqlara ayrılır.

Əsas və daimi milli maraqlar bir çox mühüm geosiyasi parametrlərinə – dövlətin beynəlxalq münasibətlər sistemindəki yerinə və roluna, nüfuzuna və hərbi gücünə, özünün suverenliyini qoruyub saxlamaq və vətəndaşlarının təhlükəsizliyini təmin etmək qabiliyyətinə və s. görə müəyyənləşir.

Azərbaycanın milli maraq çərçivəsi onun geosiyasi parametrlərinə, dövlətin iqtisadi, hərbi gücünə və resurs imkanlarına müvafiq olaraq formalaşır. Bu amil özündə millətin təkamül mərhələsini, iqtisadi, siyasi, sosial, milli-psixoloji və digər amillərin mürəkkəb kombinasiyası ilə reallaşan tarixi inkişaf prosesini ehtiva edir. Göstərilən amillər, eyni zamanda həm də Azərbaycan xalqının milli iradəsini, milli dövlət quruculuğu və tarixi təcrübəsinin məzmununu və xarakterini əks etdirir. Bu halda milli maraqlar ictimai-tarixi fenomen kimi çıxış edir, xalqın identikliyi ilə sıx qarşılıqlı əlaqəyə girir.

**Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlər**

Milli təhlükəsizlik anlayışı və təhlükəsizlik təhdidləri termini 1904-cü ildə ilk dəfə Amerika alimlərinə məxsus geosiyasi ədəbiyyatda istifadə olunub. “Milli təhlükəsizlik” termini sonrakı illərdə dünya geosiyasət elmində bir çox dəyişikliklərə məruz qalmışdır. Əvvəlcə ona daxili məzmun daşıyan məsələlər – əmlakın, şəxsiyyətin və dövlətin mühafizəsi aid edilirdisə, sonradan bu sıraya beynəlxalq və milli təhlükəsizlik məsələlərini də əlavə edirlər. 1986-1987-ci illərdən etibarən isə dünya siyasətşünaslığında milli təhlükəsizliyə insanların, cəmiyyətin və dövlətin daxili və xarici təhdidlərdən qorunmasını təmin edən inteqral anlayış kimi yanaşılmağa başlandı.

Azərbaycanın qanunvericilik və normativ-hüquqi aktlarına müvafiq olaraq milli təhlükəsizlik insanların, cəmiyyətin və dövlətin həyati əhəmiyyətli mühüm maraqlarının, həmçinin milli dəyərlərin və həyat tərzinin daxili və xarici təhdidlərdən etibarlı müdafiəsidir. Milli təhlükəsizlik sistemi ilə milli təhlükəsizliyin təmin olunması sistemi öz məzmununa görə bir-birindən fərqlənir. Birincisi, maraq və təhdidlərin qarşılıqlı təsiri prosesini əks etdirən funksional nəzəri (konseptual) sistemdirsə, ikincisi milli təhlükəsizliyin təmin olunmasının praktiki məsələlərini həll etməyi nəzərdə tutan orqanlar, vasitələr, müxtəlif təşkilatlar (institusional) sistemidir.

Qeyd edək ki, maraqların həyata keçirilməsi ilə bağlı fəaliyyət zamanı geosiyasi aktorlar – fərdlər, sosial qruplar və dövlətlər arasında bəzi obyektiv ziddiyyətlər meydana çıxır. Həmin ziddiyyətlər çoxsaylı fəaliyyət sahələrindən və konkret şəraitdən asılı olaraq müxtəlif formada təzahür edir. Bir-birinə zidd maraqların (daxili, yaxud xarici) toqquşması əvvəl potensial, sonra isə real təhdidlər yaradır. Lakin maraqların üst-üstə düşən və paralellik təşkil edən digər növləri də olur ki, bunlar öz məzmununa görə pozitiv münasibətlərin yaranmasına şərait yaradır, ictimai və beynəlxalq münasibətlərdə qarşılıqlı anlaşmaya nail olmaq üçün baza rolunu oynayır.

Təhdidlərin aşkar edilməsi və aradan qaldırılması, milli təhlükəsizliyin təmin olunması müvafiq qurumlardan bu məsələlərə vaxtında reaksiya verilməsini, insanların, cəmiyyətin və dövlətin maraqlarının müdafiəsinin lazımi səviyyədə, məsuliyyətlə təşkil edilməsini tələb edir.

Azərbaycanın milli təhlükəsizliyinə qarşı yönəlmiş təhdidlər müəyyən təsnifat üzrə qruplaşdırılır. Bu təsnifat təhdidlərə qarşı, onların konkret xüsusiyyətlərini nəzərə almaqla təşkilati tədbirlər görməyə lazımi imkanlar yaradır. Təsnifatın əsasında təhlükə mənbəyinin yerləşdiyi yer, təhdidin formalaşma səviyyəsi, xarakteri və s. dayanır.

Təhdidlər təhlükə mənbəyinin harada yerləşməsindən asılı olaraq daxili və xarici təhdidlərə bölünür. Əgər təhdidlər xarici dövlətdən və onun vətəndaşlarından gəlirsə, onlar xarici təhdidlər adlanır. Təhdidlərin mənbəyi dövlətin öz daxilində və onun vətəndaşları ilə bağlıdırsa, onlara daxili təhdidlər deyilir.

Formalaşma səviyyəsinə görə təhdidlər potensial və real təhdidlərə ayrılır. Potensial təhdidlər özündə təhlükənin yaranmasını, onun ilkin şərtlərinin formalaşmasını, zərər yetirmək imkanlarını ehtiva edir. Real təhdidlər isə artıq formalaşmış hadisədir və onun zərər yetirməsi üçün bir və yaxud bir neçə faktor çatışmır. Real təhdidlərin təzahür etdiyi zaman milli təhlükəsizliyi təmin etmək sisteminin qarşısında təhdidin kəskinliyini azaltmaq və onu aradan qaldırmaq üçün lazımi tədbirlər görmək vəzifəsi dayanır.

Təhdidlər xarakterindən asılı olaraq təbii, antropogen və sosial təhdidlərə bölünür. Təhdidlərin bu cür növlərə ayrılması daha kəskin təhdidləri məqsədyönlü şəkildə aşkarlamağa, onların qarşısını vaxtında almağa, milli təhlükəsizliklə bağlı fəaliyyətin effektivliyini artırmağa imkan verir.

Ümumi təhlükəsizlik prinsiplərinə və təhdidlərin növünə, miqyasına, onların təhlükəsizlik obyektlərinə təsir vasitələrinə görə müasir dövrdə Azərbaycanın milli təhlükəsizliyinin üzləşdiyi təhdidlər sırasına təhlükəsizlik konsepsiyasında aşağıdakı məsələlər aid edilir:

Ş Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə qəsdlər;

Ş qanunun aliliyinə nail olunması, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində dövlət funksiyalarını yerinə yetirməyə qarşı yönəlmiş fəaliyyət;

Ş separatçılıq, etnik, siyasi və dini ekstremizm;

Ş terrorçuluq və kütləvi qırğın silahlarının yayılması;

Ş regional münaqişələr və transmilli mütəşəkkil cinayətkarlıq;

Ş ölkəmizin enerji infrastrukturuna qarşı fəaliyyət;

Ş xarici siyasi, hərbi və ya iqtisadi asılılıq;

Ş iqtisadi qeyri-sabitlik;

Ş peşəkar insan ehtiyatlarının çatışmazlığı;

Ş regional hərbiləşdirmə;

Ş ekoloji problemlər.

Təhdidlərin bu cür bölgüsü milli təhlükəsizliyin təmin olunması sisteminin təşkilində və onun əsas fəaliyyət istiqamətlərinin müəyyənləşməsində mühüm rol oynayır.

**Milli maraq və milli təhlükəsizlik ölçüləri**

Azərbaycanın milli maraq və milli təhlükəsizliyinin təmin edilməsi bilavasitə onun daxili və xarici maraqlarının düzgün müəyyənləşdirilməsi və onların təmin olunması mexanizmlərinin yaradılmasından asılıdır. Ölkələrin milli təhlükəsizlik maraqları və onun çərçivəsi müəyyənləşdirilərkən konkret zaman – SSRİ ilə ABŞ arasındakı “Soyuq müharibə dövründən” və birincinin dağılmasından sonra yaranmış “müasir dünya nizamı” adlandırılan beynəlxalq münasibətlər sistemindəki mühüm dəyişikliklər və dünya geosiyasi məkanındakı indiki qüvvələr nisbətindən irəli gələn xarakterik xüsusiyyətlər nəzərə alınır.

Milli maraqların məzmunu, çərçivəsi və parametrləri cəmiyyətin dəyərlərini özündə əks etdirən “milli idealla” müəyyənləşir. Ümumi şəkildə götürdükdə millətin və xalqın ən mühüm “idealını” ilk növbədə özünüqoruma, özünüyaşatma və davamlı inkişaf (yeniləşmə, təkmilləşmə və s.) maraqları təşkil edir. Məsələn, Azərbaycan öz milli təhlükəsizliyinin çərçivəsini və təmin edilməsi mexanizmlərini 1992-1995-ci illərin “özünüqoruma və özünüyaşatma” vəziyyətindən, 1996-cı ildən başlanan və günümüzdə də davam edən – “davamlı inkişafa qədərki” keçid dövrünün dinamikasında yarada bilmişdir.

Milli maraq çərçivəsi milli vəzifələrin əhəmiyyətinə və dərəcəsinə görə sıralanır və tez-tez istifadə olunan “həyati əhəmiyyətli maraqlar” ifadəsi ilə ifadə olunur. Qeyd edək ki, bu ifadə dünyanın müxtəlif dövlətlərinin normativ-hüquqi sənədlərində öz əksini tapmışdır. Məsələn, ABŞ-ın “Yeni Yüzillikdə Milli Strategiya”sında, Rusiyanın “Federal Təhlükəsizlik haqqında” qanununda, Azərbaycanın “Milli Təhlükəsizlik Konsepsiyası”nda və s. sənədlərdə “həyati əhəmiyyətli mühüm maraqlar” anlayışı öz əksini tapmışdır. Bu sənədlərdə bəhs olunan anlayış altında fövqəladə dərəcədə vacib olan, millətin təhlükəsizliyi və özünüyaşatmaq idealı ilə bağlı məsələlər başa düşülür. Rusiya Federasiyasının “Təhlükəsizlik haqqında” qanununda həyati əhəmiyyətli mühüm maraqlara “milli tələbatlar məcmusu” kimi baxılır ki, onların da reallaşdırılması insanların, cəmiyyətin və dövlətin mövcudluğunu, mütərəqqi inkişaf imkanlarını etibarlı şəkildə təmin edir.

Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında göstərilir ki, milli maraqlar xalqımızın fundamental dəyər və məqsədlərini, habelə insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusudur və aşağıdakılardan ibarətdir:

Ş dövlətin müstəqilliyinin və ərazi bütövlüyünün qorunması, onun beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının təmin edilməsi;

Ş Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması, azərbaycançılıq ideyasının təşviqi;

Ş vətəndaş cəmiyyətinin formalaşdırılması, insan hüquq və əsas azadlıqlarının təmin olunması;

Ş demokratik və vətəndaş cəmiyyəti təsisatlarının inkişafı, qanunun aliliyi, asayişin təmini yolu ilə dövlətin funksiyalarının yerinə yetirilməsinin gücləndirilməsi, əhalinin təhlükəsizliyinin qorunması;

Ş beynəlxalq öhdəlikləri yerinə yetirmək, qlobal və regional təhlükəsizliyə, sabitliyə töhfə vermək üçün beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi;

Ş bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi, iqtisadi sabitliyin təmin olunması məqsədilə daxili və xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması;

Ş təbii sərvətlərdən tam səmərəli istifadə edilməsi, davamlı iqtisadi inkişaf, ətraf mühitin qorunması, təhsil, elmi və texnoloji potensialın artırılması yolu ilə xalqımızın gələcək inkişafının, əhalinin layiqli həyat səviyyəsinin və fiziki sağlamlığının təmin edilməsi;

Ş milli özünəməxsusluğun və dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmləndirilməsi;

Ş xalqımızın mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin qorunması, ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi;

Ş özünüdərk, vətənpərvərlik və milli iftixar hissinin, intellektual potensialın inkişaf etdirilməsi.

Milli təhlükəsizliyin təmin olunması müasir dövrdə istənilən dövlətin daxili və xarici siyasətinin ən prioritet vəzifəsi hesab olunur. Milli təhlükəsizlik ölçüləri və milli maraq çərçivəsi dünyada texniki nailiyyətlərin zəfər çaldığı və qlobal inkişafın dönməz xarakter aldığı XX əsrin sonlarına qədər daha çox ölkələrin müstəqilliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun və suveren dövlət idarəçiliyinin birbaşa xarici hücumlardan, hərbi müdaxilələrdən, cəmiyyət həyatı və şəxsiyyətə qarşı qəsdlərdən, xəfiyyə fəaliyyətindən və s. təhdidlərdən qorunması kimi başa düşülürdüsə, qloballaşmanın vüsət aldığı və ölkələrarası sərhədlərin şəffaflaşdığı müasir dövrdə bu anlayışa həm də:

Ş Regional münaqişə və transmilli mütəşəkkil cinayətkarlıq, nəzarətsiz ərazi və silahlı və mütəşəkkil silahlı dəstələrdən qaynaqlanan təhlükəsizlik təhdidlərini;

Ş dövlətdaxili içtimai həyatın (cəmiyyətin) milli, dini, sosial balansının, ölkənin demoqrafik mühitinin pozulmasını və qanunsuz miqrasiyanı;

Ş dövlətlərin iqtisadi, siyasi, sosial, ərzaq, enerji, ekoloji, nəqliyyat, maliyyə və milli valyuta təhlükəsizliyinə və makroiqtisadi mühitinə müdaxilə və xarici aktorlardan asılı vəziyyətə salmanı;

Ş ölkələrin informasiya-kommunikasiya sistemlərinə, içtimai rəyyaratma, ideoloji və mətbuat vasitələrinə total xarici, transmilli müdaxiləni və geosiyasi təsiretməni;

Ş transmilli beynəlxalq terrorizmi, kütləvi qırğın və digər silahların nəzarətdən kənar yayılması, narkotik maddələrin ticarəti və s. kimi milli təhlükəsizlik sahələrini və s. aid edirlər.

Geosiyasi ədəbiyyatda milli təhlükəsizliyin XXI əsrdəki əsas ölçülərinin qloballaşmanın səviyyəsi və mövcud ölkənin transmilli dünyaya inteqrasiyasının dərinliyi ilə bağlı müəyyənləşəcəyini söyləyirlər. Sərhədlərin şəffaflaşması ilə mal dövriyyəsi və ticarətin, pul, texnologiya və informasiya innovasiyalarının transmilliləşməsi dövlətlərin getdikcə öz geoməkanlarını qorumaq işini çətinləşdirir. Bir çox ölkələr artıq əvvəlki kimi, sərhəd maneələri yaratmaqla yerli bazarın təhlükəsizliyini təmin etmək, dünyanın əsas transmilli şirkətlərinin, arzuolunmaz ideologiyaların, təbliğat-informasiya materiallarının onun ərazisinə daxil olmasının qarşısını almaq iqtidarını itirir. Bu vəziyyət getdikcə milli adət-ənənələrin, mənəvi dəyərlərin itirilməsinə, ənənəvi həyat tərzinin pozulması və kosmopolit mühitin formalaşmasına, ictimai, siyasi və sosial həyatın standartlaşmasına səbəb olur ki, bu da ölkənin milli varlığını bilavasitə təhlükə qarşısında qoyur. Bundan başqa, əsas məqsədi gəlir götürmək olan transmilli şirkətlər ölkələrin təbii sərvətlərini və sağlam ekoloji mühitini vəhşicəsinə istismar edir, onun təbiətini korlayır, ölkənin balanslı inkişafını pozaraq xammal mənbəyinə çevirir və əhalini gələcək iqtisadi, sosial, ekoloji və başqa geosiyasi, geostrateji və geoiqtisadi təhlükələrlə üz-üzə qoyur. Bütün bunlar və qloballaşmanın dövlətlərin milli maraqlarının təmin olunması yolunda yaratdığı digər müasir problemlər hər bir ölkədən öz milli maraqlarını və milli təhlükəsizliyini təminetmənin xüsusi strategiyasını yaratmağı və onu dönmədən həyata keçirməyi tələb edir.

**Milli təhlükəsizliyin təmin olunmasının əsas vasitələri və resursları**

Milli maraqların və milli təhlükəsizliyin təmin olunması üçün dövlət öz sərəncamında olan bütün maddi və mənəvi vasitələrdən, daxili və xarici resurslardan – iqtisadi, siyasi, ideoloji, diplomatik və s. mexanizmlərdən istifadə edir.

Milli təhlükəsizliyin təmin olunması ölkənin sabit və davamlı inkişafında strateji əhəmiyyət daşıyır, ictimai həyatın bütün sahələrini əhatə edən dinamik dəyişikliklər prosesinə mühüm təsir göstərir.

Milli təhlükəsizliyinin təmin olunması üçün dövlət özünün həm daxili resurslarından, hən də xarici siyasət vasitələrindən – siyasi, iqtisadi, hərbi, təbliğat və informasiya və s. istifadə edir. Xarici siyasi fəaliyyətin əsas vasitəsi ilk növbədə rəsmi diplomatiya qurumları hesab olunur. Diplomatiya xüsusi institutların timsalında və beynəlxalq hüquqa uyğun olan çoxsaylı metod və vasitələrin köməyi ilə dövlətin rəsmi xarici fəaliyyətini təşkil edir və ona rəhbərlik edir.

Dövlətin malik olduğu iqtisadi vasitələr qarşıya qoyulan məqsədlərə nail olmaq üçün iqtisadi resurslardan istifadə etməyi və xarici iqtisadi imkanlardan bəhrələnməyi nəzərdə tutur. Çünki güclü iqtisadiyyata və maliyyə mənbələrinə malik olmaqla dövlətin beynəlxalq aləmdə öz mövqeyini möhkəmləndirməsi mümkündür.

Hərbi vasitələrə özündə ordunu, onun sayını, silahlanmanın keyfiyyətini birləşdirən və silahlı qüvvələrdə mənəvi əhval-ruhiyyəni əks etdirən dövlətin hərbi gücü aiddir.

Xarici siyasətin təbliğat və informasiya vasitələrinə isə bütün müasir informasiya vasitələrinin fəaliyyəti və xarici diaspor qurumlarının imkanları daxildir. Sadaladığımız bütün bu vasitələr Azərbaycan dövlətinin milli maraq və milli təhlükəsizliyinin təmin olunmasında, dünya birliyində öz nüfuzunu yüksəltməsində, özünə çoxsaylı tərəfdarlar qazanmasında və onlarla qarşılıqlı-faydalı əməkdaşlıq yaratmasında böyük əhəmiyyət daşıyır.

Təhlükəsizliyin təmin edilməsində ən çox istifadə olunan daxili resurs və siyasət vasitələri dövlət orqanları və qeyri-hökumət strukturları, siyasi partiyalar, vətəndaş cəmiyyəti institutları, kütləvi informasiya vasitələri, milli elita və sairdir. Dövlət bu qurumların hər biri ilə milli təhlükəsizlik naminə xüsusi iş aparır və onların bəzi şərtlərini təmin etməklə imkanlarından milli təhlükəsizliyin təmin olunması istiqamətində istifadə edir.

Milli təhlükəsizliyin təmin olunmasının daxili şərtləri sırasına dövlətin ali orqanlarının ölkədə demokratiyanı və hüquqi dövlət maraqlarını dönmədən təmin etməsi, milli-vətəndaş birliyinə nail olunması, tolerant mühit yaratması, elmin, təhsilin, sosial həyatın inkişaf etdirməsi, milli-mənəvi dəyərlərin qoruması, iqtisadi, mənəvi, sosial tərəqqiyə nail olması və sairdən ibarətdir.

**Azərbaycanın təhlükəsizlik siyasətində daxili sabitlik və sərhəd təhlükəsizliyinin təmin olunması, ölkədaxili miqrasiya, enerji, nəqliyyat təhlükəsizliyi, fövqəladə idarəetmə, ətraf mühitin və əhalinin sağlamlığının mühafizəsi, informasiya təhlükəsizliyi və s. məsələlərin də daim diqqətdə saxlanılmasını tələb edir.**

“**Azərbaycan**“.-2010.-4 may.-N 95.-S.2-3.

## İNKİŞAF STRATEGİYASININ BANİSİ

**Tahir SÜLEYMANOV,**
Milli Məclisin deputatı

**Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 14 iyul 1969-cu il tarixdə keçirilmiş plenumunda ulu öndər Heydər Əliyevin respublika rəhbəri seçilməsi ölkəmizdə iqtisadi və mədəni yüksəlişin əsasını qoymuş, xalqın milli mənlik şüurunun, özünüdərk hissinin güclənməsinə təkan vermişdir. Ulu öndər yüksək idarəçilik keyfiyyətləri, milli ideallara bağlılığı ilə ilk gündən Azərbaycanın üzləşdiyi sosial-iqtisadi problemləri aradan qaldırmaq, qanunçuluğu və hüquq qaydalarını gücləndirmək istiqamətində əzmkar fəaliyyət göstərmişdir. Ulu öndər respublikamızın üzləşdiyi problemləri ilk gündən düzgün müəyyənləşdirməklə, onların həlli üçün lazımi iradə, qətiyyət, prinsipiallıq göstərmiş və ən qısa müddətdə müsbət nəticələr əldə etmişdir.**

Ulu öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə seçildiyi dövrdə respublika iqtisadiyyatı ağır vəziyyətdə idi. Ötən əsrin 60-cı illərində iqtisadiyyatın inkişafında mənfi meyillər özünü göstərir, bir sıra obyektiv və subyektiv səbəblərdən respublikamız ümumittifaq miqyasında sosial-iqtisadi inkişafdan geri qalırdı. Neft sənayesi, energetika, qara metallurgiya, kimya və neft kimyası sənayesində işlərin fasiləsizliyi pozulur, bir çox sahələrin texniki-iqtisadi göstəriciləri aşağı düşürdü. Bütün bunlar isə respublikaya rəhbərlik missiyasını üzərinə götürmüş liderdən sonsuz qətiyyət, problemlərə rasional yanaşma qabiliyyəti, yüksək işgüzarlıq tələb edirdi.

Heydər Əliyev rəhbərliyə gəlişindən bir ay sonra Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumunda məruzə ilə çıxış etdi. Həmin məruzədə respublika iqtisadiyyatında yaranmış acınacaqlı vəziyyətin hərtərəfli təhlili aparıldı, buraxılmış nöqsan və çatışmazlıqlar diqqətə çatdırıldı. 1969-1970-ci illər Azərbaycanın iqtisadi və ictimai-siyasi həyatında dönüş mərhələsi oldu. Respublikamızın dinamik inkişafı üçün kompleks proqramlar işlənib hazırlandı. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin respublikanın inkişafı üçün yorulmaz fəaliyyəti, misilsiz təşəbbüskarlığı və böyük təşkilatçılığı 1970-1980-ci illərdə müvəffəqiyyətlərin rəhni oldu.

Ötən əsrin 60-cı illərində kənd təsərrüfatının inkişaf etdirilməsində mövcud imkanlardan lazımınca istifadə edilmirdi. Əsas sahə sayılan pambıq, dənli bitkilər, əkin sahələri əsaslı surətdə azaldılmışdı. Respublikada kənd təsərrüfatının geriliyinin səbəbləri avqust plenumunda açıq şəkildə göstərildi, geridə qalan təsərrüfat sahələrinin inkişaf etdirilməsinin düzgün elmi yolları müəyyənləşdirildi.

Azərbaycana rəhbərliyinin birinci dövründə ulu öndər Heydər Əliyev aqrar sahəni inkişaf etdirməklə respublikamızın ayrı-ayrı bölgələrində kənd təsərrüfatı məhsullarının becərilməsinə xüsusi əhəmiyyət verirdi. Məsələn, Lənkəran zonasında faraş tərəvəz məhsullarının yetişdirilməsi nəticəsində cənub bölgəsi “Ümumittifaq bostanı” adını almışdı. Bu zonanın inkişafı əhalinin maddi-məişət şəraitinin yaxşılaşdırılmasında mühüm rol oynayırdı. Beş ildə nəzərdə tutulan bir çox məhsul istehsalına dair tapşırıqlar dörd ildə yerinə yetirilmişdi.

Respublikanın sonrakı beşillikdə inkişaf planı Heydər Əliyevin ideyaları, fikirləri, proqnozları əsasında tərtib edilmişdi. Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsi üçün yeni mənbələr, imkanlar axtarılır, aşkarlanırdı. Ümumiyyətlə, sonrakı beşillik Azərbaycan iqtisadiyyatının inkişafında dönüş mərhələsi oldu. Hər il Azərbaycan SSR Ümumittifaq sosializm yarışının qalibi olur, Keçici qırmızı bayraqla təltif edilirdi. Heydər Əliyevin böyük təşkilatçılığı və rəhbərliyi altında 1971-1975-ci illərdə xalq təsərrüfatının bütün sahələrində əməyin səmərəli təşkili, 1976-1980-ci illərdə planların vaxtından əvvəl yerinə yetirilməsi üçün möhkəm baza yaradılmışdı. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev respublikamızın Lenin ordeni ilə təltif edilməsi münasibətilə “Pravda” qəzetində “Vaxtından əvvəl yerinə yetirdilər” başlıqlı məqalə ilə çıxış etmişdi. Məqalədə xalq təsərrüfatının bütün sahələrində müvəffəqiyyətlərin kökləri, səbəbləri təhlil edilir və 1976-1980-ci illərdə sənaye və kənd təsərrüfatında qazanılmış nailiyyətlərin məzmunu və əhəmiyyəti dərindən işıqlandırılırdı. Bu məqalə, demək olar ki, respublikamızda Heydər Əliyevin rəhbərliyi altında 10 ildə sosial-iqtisadi siyasətin həyata keçirilməsinin hesabatı idi. Belə ki, bütün SSRİ-də ilk dəfə olaraq Azərbaycan SSR 1975-ci il sentyabrın 10-da ümumi sənaye istehsalı üzrə doqquzuncu beşillik planı yerinə yetirmişdi.

1971-1975-ci illərdə 55 yeni iri sənaye müəssisəsi və işləyən müəssisələrdə 32 yeni sex və istehsal sahəsi işə salınmışdı. 1975-ci il dekabrın 25-də Bakı Məişət Kondisionerləri Zavodu istifadəyə verilmişdi. Bu, nəhəng bir sənaye kompleksi idi. Həmin zavodun Bakıda tikilməsi şəxsən Heydər Əliyevin xidməti idi. Onun sayəsində zavodun layihəsi SSRİ-nin başqa regionundan götürülüb Bakıya gətirilmiş və qısa müddətdə, iki ilə tikilib istifadəyə verilmişdi. Zavod Sovet İttifaqında bu tipli dördüncü sənaye kompleksi hesab olunurdu.

Sənaye müəssisələrinin, yaşayış binalarının, mədəni-məişət obyektlərinin tikilib istifadəyə verilməsi sosial-iqtisadi tərəqqinin yüksək mərhələsinə çatmışdı. 1970-1985-ci illərdə Azərbaycanda elektron maşınqayırma, radiosənaye, yüngül və yeyinti sənayesi üçün maşın və avadanlıq, digər mütərəqqi istehsal sahələri yaranmışdı. Əgər XIX əsrdən 1969-cu ilədək (yəni təxminən 100 il ərzində) Azərbaycanda 735 böyük sənaye obyekti tikilmişdisə, Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə (cəmi 14 ildə) onların sayı 1048-ə çatdırılmışdı.

Əsas istehsal sahəsi olan neft sənayesi, energetika, qara metallurgiya, kimya və neft kimyası sənayesi inkişaf etdikcə Azərbaycan keçmiş SSRİ-nin ən qabaqcıl respublikalarından birinə çevrilirdi. Nəqliyyat kompleksində, dəmiryolunda, gəmilərin yüklənmə-yükboşaltma işlərində hərəkət sürətlənmiş, sərnişin nəqliyyatının işində intensivlik artmışdı. Diqqət mərkəzində olan məsələlərdən biri də yeni yolların tikintisi idi. 1969-1982-ci illərdə tikilib istifadəyə verilən asfalt yolların uzunluğu 20,4 min kilometrə çatırdı, halbuki 1969-cu ilədək həmin rəqəm 12,7 min kilometr idi.

Azərbaycan sənayesinin inkişafında elmi-texniki tərəqqinin nailiyyətləri geniş tətbiq olunaraq 1971-1985-ci illərdə 581 adda yeni tipli maşın, avadanlıq, aparat və cihaz nümunələri yaradılmışdı. Azərbaycan 1970-1985-ci illərdə neft məhsulları, neft avadanlığı, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, məişət kondisionerləri, mineral gübrələr, çini-saxsı, xalça və xalçaçılıq məmulatı və digər məhsullar istehsalı üzrə Sovetlər İttifaqında aparıcı yerlərdən birini tuturdu. Ölkəmizdə buraxılan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu.

Azərbaycan ulu öndər Heydər Əliyevin rəhbərliyi dövründə nəhəng aqrar sənaye respublikalarından birinə çevrildi. Meliorasiya və irriqasiya sahəsində mühüm tədbirlər həyata keçirilir, aqrotexniki qaydalar sürətlə təkmilləşir, taxılın, pambığın, tərəvəzin, üzümün, çay yarpağının və başqa kənd təsərrüfatı mallarının artımı ildən-ilə yüksəlirdi. Heydər Əliyevin təşəbbüsü ilə 70-80-ci illərdə ucqar rayon mərkəzlərində, müxtəlif bölgələrdə respublika əhəmiyyətli obyektlər tikilir, iş yerləri açılırdı. Bunun nəticəsində respublikada ən kəskin problemlərdən biri olan əmək qabiliyyətli əhalinin ictimai əməyə cəlb olunması, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi təmin edilirdi.

Ulu öndər Heydər Əliyev respublikamıza rəhbər seçildikdən sonra Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən neft sənayesinin inkişaf etdirilməsinə xüsusi fikir verirdi. O vaxta qədər Xəzər dənizinin 40 metr dərinliyinə qədər sahələrdə, demək olar ki, bütün neft-qaz yataqları kəşf edilmişdi və istismara buraxılmışdı. Heydər Əliyev təşəbbüs irəli sürdü və 12 il ərzində Azərbaycana əvvəlcə dənizin 70 metr dərinliyində, sonra isə 200 metrədək dərinliyində işləyən 12 qurğu gətirildi. 1970-1980-ci illərdə Azərbaycana gətirilən “Şelf-2″, “Şelf-3″, “Şelf-4″, “Şelf-5″ qazma qurğuları vasitəsilə “Dədə Qorqud” və “İstiqlal” qurğuları düzəldildi. Onların işini təşkil etmək üçün “Süleyman Vəzirov”, “İsrafil Hüseynov” kimi boruçəkən gəmilər, 2500 ton yük qaldıra bilən “Azərbaycan” kran gəmisi, geofiziki kəşfiyyat işləri aparan gəmilər, başqa texniki gəmilər gətirildi. Ümumiyyətlə, o illərdə Xəzərdə 400-dən çox gəmi fəaliyyət göstərirdi. Açılan neft yataqlarında platformaları avadanlıqla təmin etmək üçün Bakıda Dərin Dəniz Özülləri Zavodu inşa edildi.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışı Azərbaycanı xaos və anarxiyadan, dərin sosial-iqtisadi böhrandan, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib dinamik inkişaf yoluna çıxardı. 1994-cü il sentyabrın 20-də Bakıda dünyanın 11 transmilli neft şirkətinin iştirakı ilə çağdaş tariximizə “Əsrin müqaviləsi” adı ilə düşmüş qlobal neft müqaviləsinin təntənəli imzalanma mərasimi keçirildi. Bununla da Azərbaycan MDB məkanında Qərbin iri neft şirkətləri ilə irimiqyaslı saziş imzalayan ilk dövlət olmaqla Xəzər dənizində beynəlxalq əməkdaşlığın bünövrəsini qoydu. Xəzərin Azərbaycan sektorunda yerləşən “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının birgə mənimsənilməsini nəzərdə tutan bu sazişin reallaşması, ərsəyə gəlməsi təkcə respublikamız üçün deyil, Qərbin bir sıra aparıcı dövlətləri, habelə Cənubi Qafqaz və Orta Asiya regionu üçün strateji əhəmiyyət daşıyır. Bu qlobal enerji müqaviləsi Azərbaycanın müstəqil dövlət olaraq öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını sonadək müdafiə etmək əzmində olduğunu təsdiqlədi.

“Əsrin müqaviləsi”nin imzalanmasından sonra dünyada əsas enerji mənbələrinə nəzarət uğrunda mübarizənin kəskinləşməsi sözügedən müqavilə çərçivəsində hasil olunacaq milyonlarla ton xam neftin hansı əsas marşrutla Qərb bazarlarına nəql ediləcəyi məsələsi də başlıca mübahisə predmetinə çevrilmişdi. Bu məsələ ilə bağlı fərqli təklif və ideyalar təkcə layihənin iştirakçısı olan dövlətlərin iqtisadi deyil, həm də kəmərin təhlükəsizlik maraqlarından irəli gəlirdi. Eyni zamanda region dövlətləri əsas ixrac boru kəmərinin məhz onların ərazisindən keçməsinə, beləliklə də külli miqdarda tranzit gəlirinə sahib çıxmağa, eyni zamanda alternativ enerji mənbələri əldə etməyə çalışırdılar. Mümkün marşrutlar içərisində hansının siyasi, kommersiya, iqtisadi, ekoloji və təhlükəsizlik baxımından daha əlverişli olması uzun müddət dünya siyasətinin aparıcı mövzusuna çevrilmişdi. Həmin vaxt layihənin əleyhdarları bu strateji kəmərin Bakı-Tbilisi-Ceyhan marşrutu üzrə

gerçəkləşməsini əfsanə hesab edir, onun reallıqdan tamamilə uzaq olduğunu bildirirdilər. “Bizim Bakı – Ceyhandan başqa yolumuz yoxdur. Bu, bizə həm iqtisadi baxımdan faydalıdır, həm siyasi baxımdan, həm də ən mühümü müstəqilliyimizi möhkəmləndirmək üçün ən əsas amildir”, – deyən ulu öndər Heydər Əliyev böyük diplomatik səylər hesabına Bakı-Tbilisi-Ceyhan marşrutunun siyasi baxımdan alternativsiz olduğunu beynəlxalq miqyasda tam sübuta yetirdi və müvafiq sazişin imzalanmasına nail oldu. Bununla da müstəqil respublikamızın davamlı inkişafı və yüksəlişi üçün daha bir möhkəm bünövrənin əsası qoyuldu.

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev ulu öndərin yeni neft strategiyasının məntiqi sonluğa yetişməsini uğurla təmin etdi. 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan terminalında Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tam istismara verilməsi ilə bağlı təntənəli tədbir keçirildi. Beləliklə, kimlərinsə bir vaxtlar əfsanə hesab etdiyi bu strateji layihə “Əsrin müqaviləsi”nin imzalanmasının 12-ci ildönümü ərəfəsində gerçəkliyə çevrildi. Dövlət başçısı İlham Əliyevin həmin mərasimdə bəyan etdiyi kimi, bu kəmər məhz ulu öndər Heydər Əliyevin iradəsi və qətiyyəti sayəsində gerçəkləşmişdir: “Hamımız xatırlayırıq ki, bu nəhəng transmilli layihənin təməli 1994-cü ildə Bakıda – “Əsrin müqaviləsi”nin imzalanması ilə başlanmışdır. Məhz o ağır, çətin dövrdə Azərbaycan rəhbərliyinin qətiyyəti və uzaqgörənliyi nəticəsində “Əsrin müqaviləsi” imzalandı və bundan sonra bütün məsələlər öz həllini tapdı. Yeni kəmərlər tikildi, yeni neft infrastrukturu yaradıldı. O illər Azərbaycanda çox böyük təlatüm müşahidə olunurdu, Azərbaycana ciddi təzyiqlər edilirdi. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin yaranmasını istəməyən qüvvələr müxtəlif təzyiqlər göstərirdi. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan rəhbərliyinin, xalqımızın ümummilli lideri Heydər Əliyevin qətiyyəti, cəsarəti, Azərbaycan xalqının dəstəyi bizə imkan verdi ki, ölkəmiz öz zəngin neft, qaz yataqlarını işə sala bilsin və bu gün bizim təbii ehtiyatlarımız dünya bazarlarına çıxarılır”.

**Prezident İlham Əliyevin rəhbərliyi altında son yeddi ildə Azərbaycan dünyanın ən sürətlə inkişaf edən dövlətinə çevrilmişdir. Respublikamız qlobal böhran şəraitində belə sürətli sosial-iqtisadi inkişafını qoruyub saxlayır, böyük infrastruktur layihələri, regional proqramlar həyata keçirir, Avropanın enerji təhlükəsizliyində öz sözünü deyir. Əldə olunan nəticələr böyük öndər Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi siyasət strategiyasına alternativin olmadığını bir daha sübuta yetirir.**

“**Azərbaycan**“.-2010.-4 may.-N 95.-S.4.

## ZAMANIN FÖVQÜNDƏ DAYANAN LİDER

**Alış QASIMOV,**
Bakı Dövlət Universitetinin kafedra müdiri,
hüquq elmləri doktoru, professor

Bəşər tarixi göstərir ki, hər hansı ölkənin inkişafında, dünyanın siyasi səhnəsində öz yerini müəyyənləşdirməsində mühüm rol oynayan məqamlardan biri xarizmatik lider amilidir. İstər uzaq keçmişə, istərsə də yaxın dövrə nəzər salmaq kifayət edir ki, lider amilinin dövlətin yaranmasında, inkişafında, daxili və xarici təhlükələrdən hifz olunmasında nə dərəcədə vacib rola malik olduğu konkret nümunələr əsasında bir daha öz təsdiqini tapsın.

Bu mənada Azərbaycan xalqı özünü xoşbəxt hesab edə bilər ki, kifayət qədər ziddiyyətlərlə, mürəkkəbliklərlə zəngin olan XX əsrin ikinci yarısını əhatə edən üç onillikdə ölkəyə zamanın belə fövqündə dayanan bir lider – Heydər Əliyev rəhbərlik etmişdir. Azərbaycan məhz bu dahi şəxsiyyətin rəhbərliyi altında yeni yüzilliyə güclü, qüdrətli, dünya miqyasında öz sözünü deyə bilən bir ölkə olaraq qədəm qoymuşdur.

Qeyd olunan kontekstdə heç də təəccüblü deyil ki, Heydər Əliyev fenomeni təkcə ölkəmizdə yox, Azərbaycanın sərhədlərindən çox-çox kənarda da həmişə xüsusi diqqət mərkəzində olmuş, bu dahi insanın liderlik keyfiyyətləri dünya miqyasında qəbul olunaraq öyrənilmiş və öyrənilməkdədir. Ulu öndərin fenomenal idarəçilik qabiliyyəti, rəhbərliyi, liderliyi barədə söz açarkən YUNESKO-nun sabiq direktoru Federiko Mayor onu belə təqdim etmişdir: “Heydər Əliyev bütün dünyanın etiraf etdiyi görkəmli liderdir”. Dövrünün tanınmış dövlət xadimlərindən olan Eduard Şevardnadze isə bu fikri bir qədər də konkretləşdirərək belə ifadə etmişdir: “XX əsr liderlər əsridir. Əsrin lideri isə Heydər Əliyevdir”. Bəli, Heydər Əliyev həqiqətən əsrinin lideri olaraq tarixə öz adını silinməz izlərlə əbədi həkk etmiş, ötən yüzilliyin son dekadasında müstəqil Azərbaycan dövlətinin əsaslarını qoyaraq, onu beynəlxalq hüququn suveren subyektinə çevirərək dönməz inkişafını təmin etmişdir.

Demokratik tərəqqi yolunu seçən, Avratlantik məkana inteqrasiya prosesini prioritet elan edən, Qərb təsisatları ilə sıx işbirliyi quran bir dövlət olaraq Azərbaycanın dünya birliyində öz yerini müəyyən etməsi fonunda isə ulu öndərin rəhbərliyi altında ölkəmizdə xüsusi diqqət yetirilən məqamlardan biri insan hüquqlarının ən yüksək səviyyədə qorunması, söz, fikir azadlığının təmini və bu qəbildən olan digər məsələlər olmuşdur. Bu mənada 1993-cü ildə xalqın təkidli tələbi ilə növbəti dəfə hakimiyyətə qayıdan ümummilli liderin milli dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində atdığı vacib addımlar sırasında insan amilinə yüksək dəyər verən hüquq sisteminin qurulmasının xüsusi yer tutması tamamilə təbii xarakter daşımışdır. Ümumiyyətlə, Heydər Əliyev idarəçiliyində humanizm prinsiplərinin prioritet istiqamət təşkil etməsi, insan hüquq və azadlıqlarının reallaşdırılmasına hər cür şərait yaradılması, onların yüksək səviyyədə müdafiəsi daim ön planda gələn məsələlər sırasında yer almış və dünyanın siyasi səhnəsinə artıq müstəqil dövlət olaraq qədəm qoyan Azərbaycan dövlətçiliyinin mahiyyətində dayanan əsas məqamlardan birini təşkil etmişdir. Beləliklə, həm də böyük demokrat olan ümummilli liderin rəhbərliyi altında Azərbaycanda dünyəvi, hüquqi, demokratik dövlət quruculuğu başlanmış, bunun üçün daim təkmilləşdirilən möhkəm hüquqi baza formalaşdırılmışdır. Bu məqsədlə zamanın tələblərinə cavab verən genişmiqyaslı hüquqi islahatlar aparılmasına həmişə ulu öndərin rəhbərliyi altında xüsusi diqqət yetirilmiş, yerli qanunvericilik bazası qabaqcıl beynəlxalq təcrübəyə müvafiq olaraq daha mükəmməl formaya gətirilmişdir.

Əlbəttə, ulu öndərin ikinci dəfə hakimiyyətə qayıdışından sonra hüquqi qanunvericilik və islahatlar fonunda 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilən ilk milli Konstitusiyamız xüsusi qeyd olunmalıdır. Çünki dövlətin idarə olunmasında hakimiyyət bölgüsünün Avropa təcrübəsinə uyğun paylaşdırılmasını özündə ehtiva edən müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkəmizin suverenliyinin möhkəmlənməsində, hüquqi, demokratik dövlət quruculuğu işində mükəmməl bir sənəd rolunu oynayırdı. Digər tərəfdən Əsas Qanunun qəbulundan sonra həyata keçirilən hüquqi islahatlar məhz Konstitusiya prinsiplərinə əsaslanaraq aparılır, özü də kifayət qədər dinamik xarakter daşıyırdı. Ən əsası isə ümummilli liderin rəhbərliyi altında hazırlanmış Konstitusiya insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində xüsusi əhəmiyyətə malik bir sənəd olaraq çıxış edir. Bu mənada təəccüblü deyil ki, əksər ekspertlər haqlı olaraq sözügedən sənədi həm də “İnsan hüquqları manifesti” adlandırmışlar.

Əsas Qanunun qəbulunda insan hüquqlarının reallaşdırılması, müdafiəsinə bu dərəcədə yüksək diqqət ayrılması həm də onu göstərirdi ki, cəmiyyətin maddi və mənəvi çiçəklənməsinin, inkişafının məhz insanın hüquq və azadlıqlarının təmin edilməsindən keçdiyi, bunun dövlətin başlıca vəzifəsi olaraq görüldüyü əsas məqsəd kimi qəbul edilir. Qəbulundan sonra ölkəmizdə hüquqi qanunvericilik bazasında müsbət köklü

dəyişikliklərə təkan verən Konstitusiya müasir dünyanın hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu tələblərinə cavab verən dövlətçiliyin formalaşdırılması işində də mühüm əhəmiyyət daşımışdır. Ölkəmizin hüquqi dövlət olaraq müəyyən edildiyi bu sənəddə insan və vətəndaşın hüquq və azadlıqları, onların tanınması, müdafiə və təmin edilməsi qanunvericiliyin, onun tətbiq edilmə təcrübəsinin hüquqi xarakterinin əsas və təyinedici meyarı olaraq öz əksini tapmışdır.

Bütün bunlar həm də onu təsdiq edir ki, hakimiyyətin yeganə mənbəyi kimi xalqın qəbul olunduğu Konstitusiyanın mahiyyətində duran ən önəmli məsələlərdən biri hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna xidmət edən ideyalardır. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı ümumiyyətlə, ulu öndərin müəllifliyi ilə hazırlanan Konstitusiyasının əsas fəlsəfəsi olaraq da qəbul oluna bilər. İlk növbədə ona görə ki, Baş Qanunda təsbit edilmiş insan hüquq və azadlıqlarının əsas prinsipi dövlət hakimiyyətinin bütün sahələrini özündə ehtiva edir, həmin sahələri qeyd olunan hüquqlarla əlaqələndirir, onlar qarşısında bir çox mühüm vəzifələr qoyur.

Beləliklə, bir daha aydın olur ki, mükəmməl xarakter daşıyan Azərbaycan Konstitusiyası ictimai inkişafın, dövlətin insan və vətəndaşla qarşılıqlı münasibətlərinin bütün sahələrində dövlət tənzimetməsinin sərhədlərini və xarakterini özündə təsbit edir. Bununla yanaşı, sözügedən sənəd cəmiyyətin bütün üzvlərinin statusunun əsasını da müəyyən edərək insanın əsas hüquq və azadlıqlarına ali hüquqi qüvvə verir. Xatırlatmaq yerinə düşərdi ki, Konstitusiyanın 12-ci maddəsi insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikası vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsini dövlətin ali məqsədi olaraq təsbit etmişdir.

İnsan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu dövlət quruculuğunda Heydər Əliyevin xüsusi diqqət yetirdiyi məqamlardan biri də nüfuzlu beynəlxalq təşkilatlara üzvlük, Avratlantik məkana inteqrasiya prosesi olmuşdur. Çünki bu, siyasi-hüquqi sistemin kökündən demokratikləşməsi istiqamətində əsaslı rol oynaya biləcək mühüm cəhətlərdən biri kimi çıxış edir. Qeyd olunan kontekstdə Azərbaycanın Avropa Şurasına üzvlüklə bağlı ulu öndərin atdığı addımlar mühüm önəm daşımışdır. Çünki bu, Avropa dəyərlərinə uyğun hüquqi islahatların həyata keçirilməsində özünəməxsus rol oynamışdır. Bu mənada tam cəsarətlə söyləmək mümkündür ki, qabaqcıl Avropa dəyərlərini özündə ehtiva edən islahatların həyata keçirilməsi, bu prosesin mahiyyət etibarı ilə dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə etməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır.

Avropa Şurası ilə qurulan əməkdaşlıq istiqamətində əlamətdar hadisələrdən biri quruma üzv dövlət və hökumət başçılarının 1997-ci ilin oktyabrında Strasburqda keçirilən ikinci zirvə görüşü olmuşdur. Həmin görüşdə iştirak edən ulu öndər burada geniş və dərin məzmunlu çıxışında Azərbaycanın müstəqillyini əldə etdikdən sonra ölkədə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu sahəsində görülmüş işlər haqda ətraflı danışmış, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, onun doğurduğu nəticələr, problemin sülh yolu ilə aradan qaldırılması sahəsində ölkəmizin mövqeyini bir daha bəyan etmişdir. Burada bir faktı da xüsusi olaraq vurğulamaq lazım gəlir ki, Heydər Əliyev müxtəlif beynəlxalq təşkilatlarda, ayrı-ayrı xarici dövlət nümayəndələri ilə görüşündə münaqişə nəticəsində yurd-yuvasından qovulmuş 1 milyon qaçqın və məcburi köçkünün hüquqlarının işğalçı qüvvələr tərəfindən kobud şəkildə pozulmasını daim diqqətə çatdırmış, beynəlxalq birliyi bu ədalətsizliyə son qoyulması üçün fəal rol oynamağa çağırmışdır.

Strasburqda keçirilən ikinci zirvə görüşündən sonra isə Azərbaycanın Avropa Şurasına inteqrasiyası istiqamətində görülən işlər daha da intensivləşdirildi, qanunvericilik mexanizminin Avropa standartlarına uyğunlaşması daha sürətlə həyata keçirilməyə başlandı. Bundan sonra görülən digər işlərin məntiqi nəticəsi olaraq Azərbaycan 2001-ci ilin yanvarın 25-dən etibarən Avropa Şurasının tam və bərabər hüquqlu üzvlərindən birinə çevrildi. Heç şübhəsiz ki, yeni əsrin əvvəllərində bu, Azərbaycanın demokratik inkişafının sürətlənməsində mühüm rol oynayaraq ölkəmizin Avratlantik məkana inteqrasiya yolunda önəmli bir məsafənin qət edilməsindən xəbər verirdi. Avropa Şurasına üzv qəbul olunduqdan sonra ölkəmiz bu qurum qarşısında üzərinə götürdüyü öhdəliklərin tam əksəriyyətini yerinə yetirmiş, bununla bir daha Avratlantik məkana inteqrasiya kursuna sadiqliyini əyani nümayiş etdirmişdir. Bu vaxta qədər isə sözügedən qurum çərçivəsində Azərbaycan onlarla beynəlxalq hüquqi aktları qəbul etmişdir ki, onların da əksəriyyəti məhz insan hüquqları ilə bağlı olmuşdur. Onlar sırasında işgəncələrin və qeyri-insani rəftarın qarşısının alınması, Avropa Sosial Xartiyasının ratifikasiya edilməsi, İnsan Hüquqları üzrə Müvəkkil təsisatının yaradılması və digərlərini qeyd etmək olar.

Lakin görülən işlər bununla məhdudlaşmayaraq ulu öndərin rəhbərliyi altında daha geniş miqyas almaqda idi. Bu xüsusda mühüm bir faktı qeyd etmək lazımdır ki, Avropa Şurasına üzv olduqdan sonra elə həmin il Azərbaycan Avropa İnsan Hüquqlarının və Əsas Azadlıqlarının müdafiəsi haqqında Konvensiyasını ratifikasiya etmişdir. Bununla da Avropa İnsan Haqları Məhkəməsinin yurisdiksiyasına daxil olmaqla

Azərbaycan bir daha insan hüquqlarının müdafiəsi sahəsində qabaqcıl dünya standartlarına nə dərəcədə sadiq olduğunu, onların ölkədə tətbiqində maraqlı tərəf kimi çıxış etdiyini bariz şəkildə göstərmişdir. Avropa İnsan Haqları Məhkəməsinə üzv olduqdan sonra isə ölkə vətəndaşları yerli məhkəmələrin qərarlarından narazı qaldığı halda birbaşa sözügedən Avropa hüquq instansiyasına müraciət etmək imkanı əldə etmişdir. Buna qədər isə hüquq sahəsində atılan ən mühüm addımlardan biri yenə də ulu öndərin bu sahədə də uzaqgörən siyasəti nəticəsində Şərqdə ilk dəfə ölüm cəzasının ləğv edilməsinin məhz Azərbaycanda baş tutması idi. 1998-ci ilin fevralında Azərbaycanda ölüm hökmünün ləğv olunması ilə bağlı Heydər Əliyevin müvafiq müraciətində qeyd olunurdu: “Mən cinayət hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu bəyanatı vermişəm”.

İnsan hüquqlarının etibarlı müdafiəsi, azadlıqlarının təminatı sahəsində Heydər Əliyevin misilsiz xidmətlərindən biri də üçpilləli məhkəmə sisteminin yaradılması, yeni, müasir tələblərə uyğun hakim korpusunun formalaşdırılması ilə bağlı olmuşdur. Bu fonda məhkəmə-hüquq islahatlarının aparılması və bunun Konstitusiyanın müddəalarına, Avropa tələblərinə uyğun həyata keçirilməsinə də xüsusi önəm verilirdi. Dövlət başçısının “Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətinin təmin edilməsi haqqında” 1998-ci il 18 iyul tarixli, “Məhkəmə və hakimlər haqqında” qanunun qüvvəyə minməsinə dair 1998-ci il 1 dekabr tarixli fərmanları isə qanunvericiliyin təkmilləşdirilməsi baxımından növbəti mühüm addım olmuşdur.

Üçpilləli məhkəmə sisteminin fəaliyyətə başlaması ilə insan hüquqlarının təminatlı müdafiəsində əldə olunan nailiyyətlərin miqyası daha da genişləndirildi. Yeni hakim korpusunun formalaşdırılması prosesinə start verilməsi və bunun beynəlxalq təcrübəyə uyğun olaraq test və şifahi sorğu yolu ilə həyata keçirilməsi, ilk dövrdə hakim korpusunun bu cür ədalətli və şəffaf seçim vasitəsilə 60 faiz yeniləşməsi insan hüquqlarının etibarlı müdafiəsini daha da gücləndirmişdir.

1998-ci il 22 fevral tarixində isə Heydər Əliyevin “İnsan və vətəndaşın hüquq və azadlıqlarının təmin edilməsi sahəsindəki tədbirlər haqqında” fərmanı sözügedən sahədə həyata keçirilən tədbirlərin effektivlik dərəcəsinin daha da artırılmasında vacib əhəmiyyətə malik olmuşdur. Çünki bu tədbirlər planı insan hüquq və azadlıqlarının müdafiəsini gücləndirməklə yanaşı, bu sahədə dövlətin qarşısında duran məqsəd və vəzifələrin müəyyənləşdirilməsində mühüm rol oynayırdı. Bunun ardınca, 1998-ci il 18 iyun tarixində qanunvericilik və institusional islahatların həyata keçirilməsi nəzərdə tutulan “İnsan haqlarının müdafiəsinə dair Dövlət Proqramı”nın təsdiqi yeni mühüm addım olmuş və həmin proqrama uyğun olaraq, ölkədə demokratik ədalət prinsiplərinə əsaslanan yeni məhkəmə sistemi və eləcə də Konstitusiya nəzarəti institutunun yaradılması ilə yanaşı, hüquq-mühafizə orqanlarının fəaliyyəti də təkmilləşdirilmişdir.

Bundan başqa qeyri-hökumət təşkilatlarının fəaliyyətinin genişlənməsi, insan haqlarının təmin edilməsi sahəsində effektiv müdafiə mexanizmləri formalaşdırılması istiqamətində də “İnsan haqlarının müdafiəsinə dair Dövlət Proqramı”nın qəbulu və icrası vacib əhəmiyyət daşımışdır. Ümumiyyətlə, qeyd olunan proqram insan hüquqlarının müdafiəsi sahəsində tədbirlərin səmərəliliyinin artırılması istiqamətində zəruri rol oynamışdır.

Həmin il kütləvi informasiya vasitələrinin üzərindən senzuranın götürülməsi isə medianın müstəqil inkişafının qarşısındakı ən böyük maneənin aradan qaldırılması ilə nəticələnmişdir. Beynəlxalq aləmdə də kifayət qədər müsbət qarşılanan bu addım ölkəmizdə medianın inkişafında mühüm təkan olmaqla bərabər, azad sözün bərqərar olmasına yol açan əsas addımlardan biri olmuşdur.

2001-ci il 28 dekabr tarixdə isə “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında” Konstitusiya qanunu qəbul edilmişdir. Qanuna əsasən Ombudsman institutunun təsis olunmasının əsas məqsədi kimi Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş, dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquq və azadlıqlarının bərpa edilməsi müəyyən olunmuşdur. Müvəkkilin fəaliyyəti insan hüquqlarının müdafiəsini, pozulmuş insan hüquq və azadlıqlarının bərpasını təmin edən digər dövlət orqanlarının səlahiyyətlərini məhdudlaşdırmır və əvəz etmir. Ombudsmanın fəaliyyətini tənzimləyən normativ hüquqi aktın Konstitusiya qanunu olması, müvəkkilə üzərinə düşən vəzifələrin həyata keçirilməsində geniş təminatların verilməsi insan və vətəndaş hüquqlarının müdafiəsini dövlətin ali məqsədi kimi bir daha təsdiqləmişdir.

Ümummilli liderin müəyyənləşdirdiyi inkişaf yolunu layiqincə davam etdirən, onu zamanın diktə etdiyi reallıqlara uyğun olaraq daha da zənginləşdirən Prezident İlham Əliyev hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin daha güclü özüllər üzərində qurulması, insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunması kimi fundamental məsələlərə daim xüsusi diqqət yetirmişdir. Azərbaycan Prezidentinin rəhbərliyi altında bu sahədə görülən işlər hər zaman daha mükəmməl formaya gətirilmiş, ölkəmiz bu sahədə beynəlxalq miqyasda böyük nailiyyətlərə imza atan dövlətlər sırasında mövqelərini daha da möhkəmləndirmişdir. İqtisadi artım tempinə görə, son illərdə dünya dövlətlərinin siyahısına başçılıq edən Azərbaycan uğurlu siyasi və hüquqi

islahatlar prosesini də uğurla aparmış, bu istiqamətdə görülən işlər qabaqcıl beynəlxalq standartlara uyğun olaraq davam etdirilmişdir. Həyata keçirilən islahatlar milli səviyyədə bir çox taleyüklü problemlərin həllinə ciddi imkanlar açmaqla yanaşı, həm də ölkəmizin inkişaf etmiş dünya birliyində layiqli yerini tutması prosesini sürətləndirmiş, ölkənin beynəlxalq nüfuzunu artırmış, müstəqil beynəlxalq hüquqi subyekt kimi Azərbaycanın mövqelərini daha da gücləndirmişdir. Bütün bunlar isə dünyanın əksər ölkələrinin bir neçə onilliklər ərzində keçdiyi inkişaf yolunu Azərbaycanın son 17 ildə qət edə bilməsinə gətirib çıxarmışdır. Şübhəsiz ki, bu da əsası ulu öndər tərəfindən qoyulan, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən idarəçilik mexanizminin də kifayət qədər təkmil xarakter daşımasının əsas göstəricilərindən hesab olunur.

Son illərdə insan hüquq və azadlıqlarının təmin edilməsi sferasında geniş imkanlar açan qanunların, proqramların qəbul olunması ölkəmizdə demokratik dəyərlərin bərqərar olmasını daha da gücləndirmişdir. Qeyd olunan kontekstdə Azərbaycanda hüquq-mühafizə sferasında da müntəzəm islahatlar həyata keçirilmişdir. Hüquqi-normativ dövlət aktlarının insan haqlarına dair beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, beynəlxalq təşkilatlar ilə yeni əməkdaşlıq strategiyasının hazırlanması və həyata keçirilməsi, dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, elmi-analitik tədqiqatların stimullaşdırılması, hüquqi maariflənmə üzrə işlərin genişləndirilməsi, dövlət və vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi prosesi indi də uğurla davam etdirilir.

Məhkəmə-hüquq sahəsində aparılan islahatlara, qanunvericilik bazasının təkmilləşdirilməsinə gəlincə, bununla bağlı bir sıra qanunlar xüsusi qeyd olunmalıdır. Hələ 2004-cü ildə “Məhkəmələr və hakimlər haqqında” qanuna əlavələr və dəyişikliklər edilməsi barədə” və “Məhkəmə-Hüquq Şurası haqqında” qanunlar qəbul edilmiş, bununla da məhkəmələrin fəaliyyətində nöqsan və qüsurların aradan qaldırılması, məhkəmələrin fəaliyyətində şəffaflığı təmin etmək üçün zəruri tədbirlərin görülməsi üçün mükəmməl fəaliyyət proqramı yaradılmışdır. Prezident İlham Əliyevin “Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2006-cı il 19 yanvar tarixli fərmanı isə bu sahədə həlli vacib olan bəzi məsələlərin uğurlu çözümünə gətirib çıxarmışdır. Prezident fərmanında Azərbaycanın ümumi inkişaf göstəricilərinə əsasən məhkəmə sisteminin müasirləşdirilməsi, insan hüquq və azadlıqlarının qorunmasında fəaliyyətinin daha səmərəli hala gətirilməsi üçün qeyd olunurdu ki, “məhkəmə sisteminin müasirləşdirilməsinin növbəti mərhələsində regionların sosial-iqtisadi inkişafı şəraitində əhalinin hüquq islahatlarına və hüquqi yardıma olan tələbatının ödənilməsi üçün yeni məhkəmələrin yaradılması, vətəndaşların narazılığına səbəb olan sui-istifadə, süründürməçilik və digər nöqsanların aradan qaldırılması, ədalət mühakiməsinin səmərəliliyinin və vətəndaşların məhkəmələrə inamının artırılması, məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, məhkəmələrin fəaliyyətində yeni informasiya texnologiyalarının tətbiq edilməsi, məhkəmə aparatının strukturunun və işinin daha optimal şəkildə qurulması, habelə digər mühüm məsələlərin həlli” ölkəmizin dünyaya inteqrasiyasının, bugünkü inkişafımızın tələb etdiyi prinsip və şərtlərdir.

Cənab İlham Əliyev tərəfindən “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında” əsasnamənin təsdiqindən sonra isə sözügedən nazirlik müvafiq məhkəmələrin fəaliyyətinin təşkilati təminatını həyata keçirir, məhkəmə qərarlarının icrasını təmin edir və digər funksiyaları həyata keçirir. Ötən illər ərzində də ölkəmizdə məhkəmə-hüquq islahatlarının aparılması davam etdirilmişdir ki, bu da öz növbəsində Azərbaycanda demokratik proseslərin, vətəndaş cəmiyyətinin güclənməsində əsas təkanverici məqamlardan olmuşdur. Bu baxımdan “Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında” Referendum Aktının layihəsi xüsusi qeyd olunmalıdır. 2009-cu il martın 18-də həmin akt ümumxalq səsverməsində Azərbaycan xalqının böyük əksəriyyəti tərəfindən dəstəklənmiş və Konstitusiyanın 29 maddəsinə edilmiş vətəndaşların konstitusion hüququnun təminatını daha da gücləndirmişdir.

İnsan hüquqlarının müdafiəsi sahəsində aparılan ardıcıl islahatların davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı təsdiq edilməsi barədə Prezident İlham Əliyevin 28 dekabr 2006-cı il tarixli fərmanı da xüsusi qeyd olunmalıdır. Fərmanda göstərilmişdir ki, qarşıdan gələn illər üçün Azərbaycan Respublikasının normativ hüquqi aktlarının insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, beynəlxalq təşkilatlarla yeni əməkdaşlıq strategiyasının hazırlanması və həyata keçirilməsi, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təminatı baxımından təkmilləşdirilməsi, elmi-analitik işlərin stimullaşdırılması, hüquqi maarifləndirmə işinin genişləndirilməsi, dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi kimi vəzifələr müəyyən edilir. Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini ümumdövlət vəzifəsi hesab edərək, BMT-nin “Minilliyin inkişaf məqsədlərinin” və Avropa Şurasının 3-cü Zirvə Görüşünün insan hüquqlarının müdafiəsi və demokratiyanın, qanunun aliliyinin

təmini sahəsində müəyyən etdiyi prioritetləri nəzərə alaraq, insan hüquqlarının müdafiəsi sahəsində görülən tədbirlərin genişləndirilməsi məqsədi ilə dövlət başçısı sözügedən Milli Fəaliyyət Planını təsdiq etmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi altında bazar iqtisadiyyatına keçid dövrünü sona çatdırmış Azərbaycan milli dəyərlərə sadiq qalmaqla Avratlantik məkana inteqrasiya siyasətini daha böyük uğurlara imza atmaqla davam etdirməkdədir. Bunumla yanaşı, insan hüquqlarının etibarlı müdafiəsi məqsədilə ölkəmizdə həyata keçirilən irimiqyaslı qanunvericilik və institusional islahatlar, sürətli beynəlxalq inteqrasiya və sosial-iqtisadi inkişaf prosesi bu gün də davam etdirilməkdə, dünya miqyasında ölkəmizin nüfuzunun artmasına xidmət etməkdədir.

“**Azərbaycan**“.-2010.-5 may.-N 96.-S.4.

# MÜKƏMMƏL MİLLİ DÖVLƏTÇİLİK KONSEPSİYASININ BANİSİ

**İlham MƏMMƏDZADƏ,**
AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun direktoru

**Tarixdə iz qoymuş böyük şəxsiyyətlər dövlət hakimiyyətini ölkənin yalnız bugünkü mənayefi baxımından deyil, həm də gələcək maraqları nəzərə alaraq təşkil edir, dövlətçiliyin ideoloji-siyasi və iqtisadi əsaslarını formalaşdıraraq optimal dövlət modeli yaratmağa çalışırlar. Müstəqil Azərbaycanın milli inkişaf modelinin banisi, ulu öndər Heydər Əliyev də təkamülə əsaslanan demokratik tərəqqi yolunun alternativsizliyini real əməli nəticələrlə sübuta yetirməklə bərabər, dövlətçiliyin ideoloji, siyasi, hüquqi və iqtisadi əsaslarını fundamental elmi-praktik prinsiplər əsasında müəyyənləşdirmişdir.**

Ümummilli lider hələ sovet Azərbaycanında rəhbərliyə gəlişinin ilk günlərindən mərkəzin ideoloji maneələrini aradan qaldırmaqla xalqın daşlaşmış milli şüurunu oyatmağa çalışmış, milli müstəqillik duyğularının təzahürü, Azərbaycan xalqının dünyanın ən sivil xalqları cərgəsinə çıxması üçün bütün imkanlardan istifadə etmişdir. Heydər Əliyev fenomeninin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəricisi də məhz azərbaycançılıq məfkurəsinin, milli ruhun hədsiz yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsi, real siyasi amilə çevrilməsidir. Dahi öndərin vətənpərvər fəaliyyətinin nəticəsi olaraq ictimai şüurdakı istiqlal duyğuları oyanaraq yeni məzmun kəsb etmiş, respublikada milli ruhlu ziyalı təbəqəsi formalaşmışdır.

Böyük strateq Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə (1969-1982-ci illər) ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tikinti-quruculuq tədbirləri ilə, habelə bir neçə onillikdən sonra müstəqillik nemətinə qovuşacaq respublikamızın sabahına hesablanmış digər məqsədyönlü addımları ilə özünün ümummilli lider obrazını yaratmış, tarix isə böyük öndərin bu statusunu bütün mərhələlərdə qorumuşdur. Azərbaycan xalqı özünün müstəqil inkişaf yolunda məhz ulu öndər Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə əsası qoyulmuş zəngin iqtisadi-siyasi, mənəvi və intellektual potensiala istinad etmişdir.

Heydər Əliyev hələ 70-80-ci illərdə respublikanı nəhəng tikinti meydançasına çevirərkən, irimiqyaslı obyektlərin, strateji əhəmiyyətli sənaye müəssisələrinin inşasına xüsusi əhəmiyyət verərkən, bir sıra yeni təhsil ocaqları, o cümlədən mədəniyyətin, fundamental və tətbiqi elmlərin sıçrayışlı inkişafına nail olarkən məhz bugünkü və gələcək tərəqqinin, dinamik sosial-iqtisadi inkişafın möhkəm təməlini qoymuşdur. Həmin illər Azərbaycan tarixinə siyasi, sosial-iqtisadi və mədəni yüksəliş dövrü kimi daxil olaraq xalqın milli mənlik şüurunun, müstəqillik ideallarının oyanışına güclü təkan vermişdir. Bu nöqteyi-nəzərdən inamla demək olar ki, Azərbaycan xalqının müstəqil dövlətdə yaşamaq idealının real, dayanıqlı əsaslar üzərində gerçəkləşərək əbədiləşməsi çağdaş tariximizin unudulmaz dühası – ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Ulu öndər o çətin dövrdə belə, fəaliyyətində yüksək daxili “mən”inin təcəssümü olan ədalətlilik, insanpərvərlik, humanizm kimi ali dəyərlərə sadiqliyini nümayiş etdirmişdir. Düzgünlük, haqqı nahaqqa qurban verməmək, zəifləri, məzlumları müdafiə etmək, hər bir fərdin mənafeyini önə çəkmək Heydər Əliyevin idarəçilik fəlsəfəsinin əsas mahiyyətini təşkil etmişdir. Ulu öndərin ötən əsrin 70-80-ci illərində kasıb və imkansız ailələrin övladlarının respublikada və onun hüdudlarından kənarda ali təhsil almasına, yüksək ixtisaslı kadr kimi yetişməsinə hər cür kömək göstərməsi də məhz bu xeyirxahlığın ifadəsidir. Yalnız bir faktı xatırlatmaq yerinə düşər ki, Heydər Əliyev respublikaya birinci rəhbərliyi dövründə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə kasıb, imkansız ailələrin övladlarının daxil olmasına yol açan xüsusi qərar imzalamış, beləliklə, bu sahədə ədalət və şəffaflıq prinsipini təmin etmişdir.

Böyük öndər hələ o dövrlərdən milli inkişafın yeganə yolunu xalqın yüksək təhsil almasında, maariflənməsində görmüş, respublikada elmin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. Ulu öndər yaxşı bilirdi ki, cəmiyyətin tərəqqisinə, elmin, mədəniyyətin inkişafına təsir göstərən ən qüdrətli vasitələrdən biri də təhsildir. Bəşəriyyətin çoxəsrlik təcrübəsi də göstərir ki, elmə, təhsilə qiymət verməyi bacaran xalqlar və dövlət başçıları öz ölkələrinin sürətli inkişafını təmin etmiş olurlar. Heydər Əliyev dühasının böyüklüyü də məhz ondadır ki, o, bütün fəaliyyəti boyu bu sahələrə diqqət və qayğısını əsirgəməmiş, cəmiyyətdə yüksək bilikli, intellektual və elitar təbəqənin formalaşmasına çalışmışdır. Təsadüfi deyildir ki, 1969-1982-ci illər həm də Azərbaycan elminin, təhsilinin intibah dövrü kimi xatırlanır. Heydər Əliyev öz fəaliyyəti və siyasi təcrübəsində hər zaman elmi fikrin ən yeni, mütərəqqi nailiyyətlərindən faydalanmış, cəmiyyətin, xalqın inkişaf zəminini elmdə, maariflənmədə görmüşdür. Heydər Əliyev dühası həm də

fəlsəfəmizin, mədəniyyətimizin, ədəbiyyatımızın gözəl bilicisi, araşdırıcısı, böyük hamisi olmuş, elmə, alimə həmişə yüksək qiymət vermişdir.

Tarixi təcrübə təsdiqləyir ki, dövlət müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından daha ağrılı və çətin prosesdir. Belə bir ziddiyyətli və mürəkkəb mərhələdə dövlətin xilası məhz xarizmatik liderlərdən asılı olur. 1991-ci ildə Azərbaycan özünün dövlət müstəqilliyini elan etsə də, bu, əslində, 1993-cü ilin ortalarına qədər formal xarakter daşımışdır. Ulu öndərin 1993-cü ilin iyun ayında xalqın təkidi ilə hakimiyyətə qayıdışından, oktyabr ayında isə Prezident seçilməsindən sonra müstəqil Azərbaycan dövlətinin hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi daha da sürətlənmişdir.

Ümummilli lider, ilk növbədə, ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparmış, qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirilmiş, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik bərqərar edilmişdir. Dövlət çevrilişlərinin qarşısı alınmış, Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas olmuşdur. Müstəqil dövlətimizin ərazi bütövlüyünün bərpası və Ermənistan silahlı qüvvələrinin hücumlarının qarşısının alınması, ölkənin müstəqilliyinin qorunub saxlanması üçün ordu quruculuğu istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

Ulu öndərimiz bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə respublikanın qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə, dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla çıxmış, müsbət nəticələri sübut olunmuş inkişaf kursunun Azərbaycan gerçəkliyinə adekvat strategiyasını yaratmışdır. Bu strategiya Azərbaycanda milli dövlətçiliyin siyasi, dini və etnik tolerantlığı imperativ kimi qəbul edən müasir modelini, dünyanın mövcud reallıqlarına nəzərən formalaşmış demokratik idarəetmə fəlsəfəsini, mənəvi dəyərlərimizin qorunmasını, cəmiyyətin bütün potensialının milli maraqlar kontekstində səfərbər edilməsini, ictimai-siyasi sabitlik faktoruna istinad edən yeni iqtisadi inkişaf strategiyasını, habelə hakimiyyətlə cəmiyyət arasında daimi həmrəyliyin yaradılmasının elmi əsaslarını konseptual formada özündə təcəssüm etdirir.

Böyük strateq Heydər Əliyev bu iqtisadi inkişaf modelini irəli sürərkən heç də dünya ölkələrinin təcrübəsini Azərbaycana köçürməmiş, respublikamızın zəngin təbii resurslarını, Şərqlə Qərbi qovuşduran əlverişli coğrafi-siyasi mövqeyini, geniş tranzit-kommunikasiya imkanlarını, habelə tarixi təsərrüfatçılıq ənənələrini, spesifik xüsusiyyətlərini, sosial-iqtisadi gerçəkliklərini nəzərə almışdır. Ulu öndər qısa müddətdə özəl mülkiyyətçiliyə, sahibkarlığa, sərbəst rəqabətə meydan açan, dövlətsizləşdirməni özündə ehtiva edən, sosialyönümlü mahiyyət daşıyan, habelə xarici iqtisadi əlaqələrin gücləndirilməsi və münbit biznes mühitinin formalaşdırılması yolu ilə ölkəyə investisiya axınını stimullaşdıran liberal inkişaf modelinin praktik surətdə gerçəkləşdirilməsinə nail olmuşdur.

“Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat prinsiplərinin bərqərar olması, bazar iqtisadiyyatı və sahibkarlığın inkişafıdır” – deyən Heydər Əliyev demokratik düşüncə və həyat tərzinin bütün dünyada diktə etdiyi bu meyarlara hər zaman sadiqlik göstərmiş, milli inkişaf naminə bu yolun alternativsizliyi fikrinin ictimai rəyə aşılanmasına nail olmuşdur.

Ümummilli liderimiz mərkəzi planlaşdırma və bölgü sistemindən sərbəst bazar münasibətlərinə əsaslanan iqtisadi modelə keçid prosesinin aztəminatlı təbəqənin maraqlarına toxunmaması üçün dövlət büdcəsində sosial müdafiə tədbirlərinə geniş yer ayrılmasını da təmin etmişdir.

1995-ci ildən respublikamızda hüquqi-siyasi və iqtisadi islahatların paralelliyi prinsipinin gözlənilməsi, Azərbaycanın inkişaf tempinə cavab verən siyasi liberallaşdırma siyasətinin aparılması ümummilli liderin müəyyənləşdirdiyi milli inkişaf strategiyasının strateji xəttini təşkil edir. Yeni minilliyin başlanğıcında formalaşan mürəkkəb və ziddiyyətli dünya nizamı böyük siyasət ustadının məharətlə əsaslandırdığı bu inkişaf modelinin respublikamız üçün müstəsna əhəmiyyətini tam sübuta yetirir.

Respublikamızın son 17 ildə iqtisadi və demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində qazandığı böyük nailiyyətlər də məhz ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılmış möhkəm təmələ əsaslanır. Son illərdə bu inkişaf modelinin yeni dövrün tələblərinə uyğun daha da təkmilləşdirilməsinə xidmət edən kompleks islahatlar Azərbaycanı zəif və tənəzzül edən iqtisadi sistemə, düzgün siyasi institusional quruluşa, marginallaşmış ictimai şüura malik sosiumdan yeni davranış normaları və stereotipləri, davamlı siyasi sistemi və mərhələlər üzrə formalaşmaqda olan demokratik təsisatları, bazar sisteminə xas iqtisadi strukturu olan əlverişli geopolitik məkana çevirməyə imkan vermişdir.

Bu gün dünyanın ən müxtəlif iqtisadi mərkəzləri respublikamızın davamlı iqtisadi yüksəlişi timsalında XXI əsrin yeni iqtisadi fenomenini görür, Azərbaycan modelinin mahiyyətini öyrənməyə çalışırlar. Bütün bu nailiyyətlərin fundamental nəzəri əsaslarının yaradılması isə müasir dövrdə həm də fəlsəfənin və digər ictimai elmlərdə elmi tədqiqatların əsasını təşkil etməli, bu istiqamətdə dissertasiyaların mövzu aktuallığına, keyfiyyətinə diqqət artırılmalıdır.

Ulu öndərin dövlətçilik fəlsəfəsinə əsaslanan İlham Əliyevin prezidentliyinin ötən 7 ili də respublikada sabit iqtisadi və siyasi sistemin yaradılmasına, sosial vəzifələrin həllinə, əhalinin alıcılıq qabiliyyətinin və rifahının yüksəldilməsinə, cəmiyyətdə həmrəyliyin əldə edilməsinə yönəlmişdir. Qazanılan uğurlar Azərbaycanın davamlı və sonu görünməyən demokratiya magistralında uğurla irəliləməsinə, dünya miqyasında nüfuzunu yüksəltməsinə, özünüifadəsinə geniş imkanlar yaratmışdır. Respublikamızın sabit iqtisadi inkişaf yolunda olması idarəçiliyin demokratik formasını sabitləşdirməyə və möhkəmlətməyə əsaslı zəmin formalaşdırır. İndiki məqamda ölkənin siyasi elitası qarşısında duran əsas vəzifələrdən biri iqtisadi nailiyyətləri yeni demokratik şüur formalaşdırılması amilinə transformasiya etməkdir.

İnkişaf etmiş və demokratik inkişaf yolunda böyük təcrübə qazanmış Qərb ölkələrinin standartları ilə totalitar rejimlərdən yenicə xilas olmuş, keçid mərhələsini yenicə adlayan ölkələrdə gedən prosesləri eyniləşdirmək cəhdi istənilən halda uğursuzluğa məhkumdur. Azərbaycan müstəqillik qazandıqdan sonra azad bazar iqtisadiyyatı və demokratik inkişaf yolunu prioritet kimi seçsə də, bu prosesin tədricən həyata keçirilməsinə, təkamülə əsaslanmasına üstünlük vermişdir. Respublikamızın üstünlük verdiyi siyasi strategiya dünya miqyasında qəbul olunmuş universal prinsiplərin saxlanılması yolu ilə milli demokratiya modelinin formalaşdırılmasıdır. Belə bir modelin formalaşması isə, şübhəsiz, ölkənin sosial-iqtisadi inkişaf tempi ilə həmahənglik təşkil edir.

Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, ölkəmizin sabit və tarazlı inkişafı yalnız demokratik yeniliklərin geniş tətbiqindən keçir. Dövlət başçısı bu iki təmayülü bir-birindən ayırmadan Azərbaycanın strateji inkişaf yolu kimi müəyyənləşdirmiş, iqtisadi tərəqqi və demokratikləşmə prosesinin üzvi vəhdətinə nail olmağın vacibliyini dəfələrlə önə çəkmişdir.

"Vətəndaş cəmiyyəti quruculuğu, demokratik proseslərin möhkəmləndirilməsi, hüquqi dövlətin formalaşdırılması heç də şüar və arzu deyil, Azərbaycanın hərtərəfli inkişafının başlıca şərtidir. Bizim təcrübəmiz göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur" – deyən dövlət başçısı hesab edir ki, yeni dünya nizamında demokratiyanın həqiqi mahiyyətini qoruyub saxlaması üçün vətəndaşların sosial-siyasi, mədəni və iqtisadi rifahına, bu sahələrdə baş verən müsbət dəyişikliklərə adekvat reaksiya verməlidir. Demokratik dövlətin mühüm təsisat kimi başlıca vəzifəsi bütövlükdə cəmiyyətin və ayrılıqda hər bir vətəndaşın maddi rifah halının yüksəldilməsi, onların sosial müdafiəsi və layiqli həyat səviyyəsinin təmin olunması, habelə şəxsiyyətin azad inkişafı üçün bərabər imkanların yaradılmasıdır.

Qloballaşma dövründə demokratikləşmə və siyasi liberallaşma hər bir xalqın sosial-iqtisadi, mədəni, intellektual baxımdan bu prosesə hazırlığı ilə şərtlənir. Demokratik dəyər və normaların hər hansı cəmiyyətdə möhkəmlənməsi insanların maddi rifah halının yüksəlməsindən keçir. Maddi sıxıntılar içərisində yaşayan insan azad ola bilməz və iqtisadi baxımdan inkişaf etməmiş hansısa cəmiyyətdə demokratiya qurmaq mümkün deyildir. Azərbaycan demokratik tranzit mərhələsində olan ölkə kimi demokratik inkişaf yolunun dönməzliyini və əbədiliyini özü üçün tam yəqinləşdirmiş, xalqın gələcək inkişafında bu mütərəqqi dəyərlərin rolunu və əhəmiyyətini daim önə çəkmişdir. Azərbaycanın hazırkı sürətli iqtisadi inkişaf tempi cəmiyyətdə ictimai konsensusa, liberallaşmaya xidmət edən hüquqi-siyasi və demokratik islahatlar kursunun daha da genişləndirilməsini zərurətə çevirir.

Bu gün dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli islahatlar Azərbaycan dövlətinin siyasi xarakterini və inkişaf yolunu müəyyən edir. Bu müəyyənləşmə Azərbaycanın qısa müddət ərzində iqtisadi inkişaf göstəricilərinə görə bütün dünyada liderə çevrilməsi faktıdır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi nəhəng layihələrin gerçəkləşməsi, respublikamızın ümumilikdə Avropa regionunun gələcək enerji təhlükəsizliyi missiyasını üzərinə götürməsi xalqımızın dünya arenasında layiqli yerini təmin edir.

Azərbaycan insanının gün-güzəranı yaxşılaşır, şəhər, kənd və qəsəbələr abadlaşır, respublikamızda işsizlik-yoxsulluq kimi ağır sosial bəlalar artıq həllini tapır. Bütün bunlarla yanaşı, Azərbaycanda demokratiyanın təntənəsi, qanunların aliliyi, haqq-ədalətin zəfəri üçün bütün lazımi tədbirlər həyata keçirilir. Azərbaycanın mövcud iqtisadi potensialının insan kapitalına çevrilməsi istiqamətində atılan addımlar ölkəmizin elmi inkişafına doğru sürətli kurs götürdüyünü təsdiqləyir.

Hazırkı mərhələdə neft gəlirlərindən əldə olunan külli miqdarda vəsaitin respublikamızda vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu prosesinin daha da sürətləndirilməsinə, ümumilikdə, insan amilinin yüksəlişinə yönəldilməsi demokratiya sahəsində böyük təcrübəsi olan dövlətlər, ayrı-ayrı beynəlxalq təşkilatlar, nüfuzlu ekspertlər tərəfindən müsbət qarşılanır. Dövlət başçısı İlham Əliyev həyata keçirdiyi islahatları məhz ulu öndər Heydər Əliyevin müəllifi olduğu möhkəm təməl üzərində davam etdirir və yeni dövrün tələblərinə uyğun zənginləşdirməyə çalışır.

Azərbaycan xalqını Heydər Əliyev ideyaları ətrafında toplayan cənab İlham Əliyev özünü azərbaycanlı sayan, bu mənsubiyyətdən qürur duyan hər kəsi ulu öndərin arzularının, ideyalarının həyata keçirilməsi istiqamətində səfərbər edir. Bütün bunlar tam mənada deməyə əsas verir ki, Prezident İlham Əliyevin dövlətçilik təcrübəsində siyasi varislik ənənələrinin davamı, üstəlik, mütərəqqi inkişaf meyillərinin gücləndirilməsi ideyası üstünlük təşkil edir.

Alternativsizliyi ulu öndərimiz Heydər Əliyevin hakimiyyətdə olduğu illər ərzində dəfələrlə öz təsdiqini tapmış bu siyasi kursun davamlılığının təmin olunması Azərbaycanın dövlətçilik əsaslarının daha da möhkəmləndirilməsinə, müstəqilliyimizin əbədiliyinə, dövlətin hərtərəfli yüksəlişinə ən etibarlı təminatdır.

“**Xalq qəzeti**“.-2010.-5 may.-N 96.-S.3.

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN SİYASİ VƏ İQTİSADİ MÜSTƏQİLLİYİNİN BANİSİDİR

**İSA ALIYEV,**
AMEA İqtisadiyyat İnstitutunun direktoru,
iqtisad elmləri doktoru, professor

**AQİL ƏSƏDOV,**
İqtisadiyyat İnstitutunun şöbə müdiri,
iqtisad elmləri namizədi

**Müasir dövr qloballaşma proseslərinin sürətlənməsi, dövlətlərarası inteqrativ əlaqələrin genişlənməsi və ayrı-ayrı ölkələrdə bu və ya digər dərəcədə iqtisadi böhranın baş verməsi ilə xarakterizə olunur. Müşahidələr göstərir ki, ayrı-ayrı milli təsərrüfatların beynəlxalq aləmə sürətlə inteqrasiya etdiyi və bu təsərrüfatların vahid dünya iqtisadi orqanizmi şəklində formalaşdığı bir dövrdə zəngin təbii və iqtisadi sərvətlərə malik olan ölkələrdə müstəqilliyin qorunub saxlanılması bəzən onun əldə edilməsindən daha çətin və mürəkkəbdir. Təcavüzə məruz qalmış Azərbaycan Respublikasında isə bu daha da çətin idi. Müstəqilliyin ilk illərinə nəzər saldıqda aydın olur ki, ölkəmiz yalnız dövlət müstəqilliyini itirmək təhlükəsi ilə deyil, eyni zamanda, real olaraq onun ərazi bütövlüyünə qəsd edilmiş və üstəlik, daxildən də parçalanmaq təhlükəsi ilə qarşı-qarşıya qalmışdı.**

Bu vəziyyəti SSRİ-nin dağılmasından sonrakı iqtisadi çətinliklər daha da ağırlaşdırmış, xalqımız iqtisadi sarsıntılar, çətinliklər girdabına düşmüşdü. Bir tərəfdən, istehsal olunan məhsullar tələbata cavab vermədiyi üçün anbarlarda yığılıb qalır, digər tərəfdən strateji məhsullar blokada vəziyyətində olduğumuz üçün xarici bazarlara böyük çətinliklə çıxarılırdı. Həm valyuta çatışmazlığı, həm də yolların təhlükəli olması ilə əlaqədar mal idxalı da böyük çətinliklə həyata keçirilirdi. Sanki ölkə əhalisi açıq-aşkar aclıq imtahanına çəkilirdi. Ərzaq anbarları boşalmış, gündəlik tələbat mallarının istehsalı təhlükəli dərəcədə azalmışdı. Hətta elə vaxt olurdu ki, Qazaxıstandan yola salınmış un gecə Bakıya çatmasaydı, səhəri gün şəhərdə aclıq baş verə bilərdi. Ona görə də dövlət orqanlarının bütün gücü həmin unun Bakıya vaxtında çatdırılmasına yönəldilirdi. Bəzi məsuliyyətsiz vəzifəli şəxslər isə bu çətinlikdən ciblərini doldurmaq üçün istifadə edir, öz maraqlarını milli və dövlətçilik maraqlarından üstün tuturdular. Ölkə xarici yardımlardan asılı vəziyyətə düşmüşdü. 1992-ci ilin qışında Avropa Birliyindən alınan 300 min ton, 1993-cü ilin qışında isə Türkiyənin verdiyi 300 min ton əvəzsiz un və taxıl yardımı buna misal ola bilər. Məhz belə bir sosial-iqtisadi və siyasi çətinliklər dövründə Azərbaycan dövlətinin və xalqının əsl xilaskarı 1993-cü ildə yenidən hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev olmuşdur.

Bu gün Azərbaycan beynəlxalq aləmə sürətlə inteqrasiya edən, dinamik iqtisadi inkişafını və etibarlı siyasi stabilliyini təmin etmiş müstəqil bir dövlətdir. Artıq dövlətimiz mötəbər kürsülərdən öz sözünü deməyə, öz haqlı mövqeyini bildirməyə və qorumağa qadir, zəngin iqtisadi potensiala malik bir dövlətdir. Müstəqilliyin ilk illərində məlum səbəblərdən bərbad hala düşmüş Azərbaycan iqtisadiyyatında tərəqqiyə nail olunmasına, çox kövrək və zəif dövlət siyasətinin güclü və aparıcı mövqeyə yüksəlməsinə, qədim tarixi və çoxəsrlik zəngin mədəniyyəti olan uca millətimizin bütün dünyada tanıdılması istiqamətində yorulmaz fəaliyyətinin nəticələrinə görə, hələ uzun illər öncədən xalqımızın qəlbində əvəzsiz dövlət xadimi kimi dəyərli qiymətini almışdır. Dünya təcrübəsindən məlumdur ki, dövlət başçısı ölkənin inkişaf tələblərini və xalqın mənafeyini dəqiqliklə qiymətləndirməyə qadir olan, ölkənin mədəni, iqtisadi və təbii resurslarını, potensialını əhalinin rifahı və dövlətçiliyin inkişafına yönəltməyi bacaran şəxs olmalıdır. Bu mənada Azərbaycan xalqı xoşbəxtdir ki, tarix xalqımıza Heydər Əliyev kimi dünya miqyaslı şəxsiyyətin simasında əsl ümummilli liderə xas olan parametrlərə tam cavab verən, eləcə də xalqımızın və dövlətimizin qarşısında duran çətinlikləri aradan qaldırmaqla Azərbaycan dövlətini qısa zamanda hüquqi, dünyəvi, demokratik inkişaf yoluna çıxarmağa qadir olan dövlət başçısı, ümummilli lider bəxş etmişdir.

Ölkəmizdə müstəqil, demokratik, hüquqi dövlətin möhkəm təməli ümummilli lider Heydər Əliyevin memarlığı ilə 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ilə qoyuldu. Konstitusiyanın qəbulu ilə bütün dünyaya bir daha bəyan edildi ki, sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək dövlət hakimiyyətinin yeganə mənbəyi olan Azərbaycan xalqının suveren hüququdur; insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir.

Müstəqillik əldə etmiş dövlətlərin təcrübəsi göstərir ki, suveren sosial-iqtisadi inkişafın müvəffəqiyyəti, ilk növbədə, iqtisadi müstəqilliyin təmin olunmasından və köhnə iqtisadi sistemin düşünülmüş şəkildə yenisi ilə əvəz olunmasından asılıdır. Ona görə də Konstitusiyada birmənalı şəkildə təsbit edilmişdir ki, təbii ehtiyatlar

hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına malikdir; Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir; Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir. Bütün bunlar əsasında Azərbaycan dövləti xalqın və hər hansı bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır; mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur.

Təbii ki, Azərbaycan dövlətinin qarşısında duran ali məqsədə nail olunması, ilk növbədə iqtisadi sabitliyin də təmin olunmasını tələb edirdi. Çünki 1992-1994-cü illərdə mövcud olmuş hiperinflyasiya iqtisadiyyatın əsaslarını sarsıdır, əhalinin maddi və sosial vəziyyətini getdikcə ağırlaşdırırdı. Birmənalı şəkildə aydın idi ki, həyata keçirilən iqtisadi siyasətin müvəffəqiyyəti genişmiqyaslı sabitləşdirmə tədbirləri ilə inflyasiyanın cilovlanmasından və makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin olunmasından asılıdır. Həyat bütün kəskinliyi ilə iqtisadi islahatların da sürətləndirilməsini tələb edirdi. Ona görə də ölkə iqtisadiyyatında bazar prinsiplərinin bərqərar olmasını təmin etmək məqsədilə liberallaşdırılma istiqamətində radikal addımların atılması bazar iqtisadiyyatı münasibətlərindən doğan bir zərurət idi. Məhz bu baxımdan 1994-1995-ci illərdə xarici ticarət əməliyyatlarının liberallaşdırılmasına başlanmış və açıq qapı siyasətinə uyğun olaraq müvafiq sahələrdə liberallaşdırma tədbirləri önə çəkilmişdir. Bütün bunlar isə öz növbəsində qiymət islahatlarının da radikal şəkildə davam etdirilməsini tələb edirdi. Bununla əlaqədar olaraq 1995-1996-cı illərdə qiymətlərin formalaşması prosesinin inzibati-amirlik sisteminin qalıqlarından azad olunması başa çatdırıldı. Bazar iqtisadiyyatının əsas prinsiplərindən birinin, yəni qiymətlərin bazarda sərbəst şəkildə tələb və təklif amillərinin qarşılıqlı təsiri altında formalaşması prosesinin başlanması üçün yol açılmış oldu. Bu proses bazar iqtisadiyyatının digər vacib elementi olan valyuta rejiminin sərbəstləşdirilməsi prosesi ilə tamamlandı.

Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli iqtisadi islahatlar az bir zamanda geniş beynəlxalq dəstək aldı. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı həmin islahatlara dəstək verməyə başladılar. Onlar Azərbaycanda iqtisadi islahatlar haqqında xüsusi proqram hazırladılar və ölkəmizə maliyyə yardımı göstərdilər. Həmin təşkilatlarla sıx əməkdaşlıq şəraitində hazırlanmış sabitləşdirmə proqramına uyğun olaraq iqtisadiyyatın liberallaşdırılmasına yönələn radikal islahatlar dönməz xarakter aldı. Sərt və çevik pul-kredit, büdcə, vergi gömrük siyasətinin aparılması, qiymətlərin, xarici iqtisadi fəaliyyətin və valyuta bazarının liberallaşdırılması və xarici kapitalın cəlb olunması nəticəsində qısa zamanda (1995-1996-cı illər) ölkədə makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin edilməsinə nail olundu. Əgər 1994-cü ildə inflyasiya tempi 1800%-ə, manatın ABŞ dollarına nisbətən dəyərsizləşməsi 1200%-ə çatmışdırsa, artıq 1995-ci ildə vəziyyət əsaslı dəyişməyə başlamış və həmin göstəricilər uyğun olaraq 84, 6% və 3, 6% olmuşdur. Sonrakı illərdə bu göstəricilər daha da yaxşılaşmış, 1996-cı ildə inflyasiya 6, 8%-ə enmiş, manatın ABŞ dollarına nisbətən məzənnəsi 8% möhkəmlənmişdir. 1997-ci ildə inflyasiya tempi minimuma enərək cəmi 0, 4% təşkil etmiş, manatın dəyəri isə 5,1% möhkəmlənmişdir. Bu sabitlik dünya maliyyə bazarlarında baş vermiş maliyyə böhranına baxmayaraq 1998-ci ildə də qorunub saxlanılmış, 7,6% səviyyəsində deflyasiya baş vermiş, manatın ABŞ dollarına nisbətən məzənnəsi isə devalvasiyaya uğramamış, sabit olaraq qalmışdır.

1995-96-cı illərdə yaranmış əlverişli makroiqtisadi sabitlik şəraitindən istifadə edərək 1997-1998-ci illərdə ölkədə iqtisadi islahatların yeni mürəkkəb mərhələsinə – struktur islahatlar mərhələsinə başlandı. Xüsusi dövlət proqramına uyğun olaraq ölkədə genişmiqyaslı özəlləşdirməyə başlanmış, iqtisadiyyatın əsas sahələrindən olan aqrar sferada torpağın xüsusi mülkiyyətə verilməsi istiqamətində radikal islahatlar aparılmış, yeni iqtisadi tələblərə cavab verən maliyyə sektorunun, onun vacib hissəsi olan bank sisteminin formalaşdırılması, dövlət banklarının yenidən qurulması istiqamətində radikal addımlar atılmışdır.

İqtisadi islahatların mühüm istiqamətləri kimi ölkədə özəlləşdirmə proqramının həyata keçirilməsi azad sahibkarlığın və şəxsi təşəbbüskarlığın inkişafına şərait yaratmışdır. Qeyd etmək lazımdır ki, 1998-ci ilə qədər 28 mindən çox kiçik müəssisə özəlləşmiş və demək olar ki, kiçik özəlləşdirmə başa çatmışdır. 1997-ci ildən başlayaraq özəlləşdirmədə həlledici mərhələ olan böyük özəlləşdirməyə – orta və iri dövlət müəssisələrinin səhmdar cəmiyyətlərinə çevrilməsi prosesinə başlanmışdır. Təkcə 1998-ci ildə 800-dən çox orta və iri dövlət müəssisələri səhmdar cəmiyyətlərə çevrilmişdir.

Beləliklə, ölkədə makromaliyyə sabitliyinin təmin edilməsinin, bazar münasibətlərinin formalaşdırılmasının əsas şərti olan iqtisadiyyatın idarə olunmasının bütün istiqamətlərdə liberallaşdırılmasının, bazar iqtisadiyyatının bütün atributlarının yetişməsinə iqtisadi və hüquqi islahatlar aparılması yolu ilə zəruri mühitin yaradılmasının və əsaslı struktur islahatlarının aparılmasının məntiqi nəticəsi olaraq 1989-cu ildən sonra davam edən iqtisadi tənəzzül dayandırıldı və ümumi daxili məhsulun həcminin aşağı düşməsinin qarşısı alındı.

Qeyd olunduğu kimi, Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını labüd fəlakətdən, hərc-mərclikdən xilas edən dahi rəhbər ölkənin iqtisadi yüksəlişi üçün təcili tədbirlər görməyə başladı. İttifaq səviyyəsində mövcud olan iqtisadi əlaqələr dağıldıqdan sonra milli iqtisadiyyatın dirçəldilməsi üçün ölkənin malik olduğu təbii resurslardan istifadə edilməsi və milli məhsulların xarici bazarlara çıxışının təmin edilməsi mühüm əhəmiyyət kəsb edirdi. Məhz belə bir dövrdə, Azərbaycanın zəngin neft ehtiyatlarının mövcudluğunu nəzərə alan ümummilli lider Heydər Əliyevin təşəbbüsü və uzaqgörənliyi sayəsində Azərbaycanın dinamik inkişafının təməli sayılan beynəlxalq müqavilə – "Əsrin müqaviləsi" imzalandı. Bununla da yeni neft strategiyası uğurla həyata keçirilməyə başlandı. Bağlanmış müqavilələr Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi və 12 dekabr 1994-cü ildə qüvvəyə mindi. Ölkəmizin iqtisadi inkişafında əvəzsiz rol oynayan "Əsrin müqaviləsi" üzrə ilkin neft 12 noyabr 1997-ci ildə hasil edilməyə başlandı. Təqribən 730 milyon ton neft və 200 milyard kubmetrə yaxın təbii qaz ehtiyatına malik olan yataqlarda görüləcək işlərə 12-14 milyard ABŞ dollarına yaxın investisiya qoyuluşu nəzərdə tutulurdu ki, bu da müstəqilliyini yenicə əldə etmiş Azərbaycan Respublikası üçün çox vacib məsələ idi. Təkcə bir faktı qeyd edək ki, 1995-ci ildən başlayaraq ölkə iqtisadiyyatında sabitlik yarandıqdan sonra ölkəmizə xarici investisiya qoyuluşu sürətlə artaraq 10 milyard dollara çatmışdır ki, bunun da 60 %-dən çoxu (6,1 milyard dollar) xarici kapitalın payına düşür. 1996-2001-ci illərdə ölkədə fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin sayı 717-dən 1974-ə, müəssisələrdə çalışanların sayı təxminən 15 min nəfərdən 25 min nəfərə çatmışdır. Göstərilən müddətdə, eyni zamanda, xarici investisiyalı müəssisələrin ödədiyi vergilərin payı, cəmi vergi daxilolmalarında 9,3 faizdən 19,7 faizə yüksəlmişdir. Ümumilikdə isə 1996-2001-ci illərdə həmin müəssisələr vergi və sosial ayırma şəklində büdcəyə, təqribən 600 milyon dollar, sosial fondlara isə 400 milyon dollara yaxın vəsait ödəmişlər.

"Əsrin müqaviləsi" üzrə hasil edilən Azərbaycan neftinin dünya bazarlarına ixracı üçün ilkin dövrlərdə buraxıcılıq qabiliyyətləri ildə 5 milyon ton olan Bakı-Novorossiysk və Bakı-Supsa neft boru kəmərlərindən istifadə olunurdu. Lakin yaxın illərdə müqaviləyə daxil olan yataqlar üzrə illik hasilatın 50 milyon tona çatdırılacağını nəzərə alan Azərbaycan Prezidenti ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə daha böyük nəqletmə imkanına malik ixrac marşrutları araşdırıldı və optimal variant kimi Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri seçildi. Məhz buna görə də layihənin həyata keçirilməsində fenomen siyasətçi Heydər Əliyevin əvəzsiz xidmətlərini nəzərə alan layihə iştirakçıları 2004-cü ildə BTC əsas ixrac boru kəmərinə Heydər Əliyevin adının verilməsi barədə qərar qəbul etdilər. Beləliklə, "Üç dənizin əfsanəsi" adlanan BTC layihəsi reallığa çevrilərək xalqımızın maddi rifah halının yaxşılaşdırılması və doğma Azərbaycanın qüdrətli dövlət olmasına öz töhfəsini verməkdədir.

Ümumilikdə neft strategiyası ilə sürət götürən inkişaf dinamikası sonrakı illərdə daha genişmiqyaslı formada davam etdirildi. 1995-1998-ci illər əsasən müvafiq normativ hüquqi bazanın yaradılması ilə yadda qalsa da, bu dövr həm də dövlət mülkiyyətinin özəlləşdirilməsi, kiçik və orta sahibkarlığın dəstəklənməsi və s. istiqamətlərdə dövlət proqramları qəbul edilmişdir. Bazar iqtisadiyyatı şəraitində iqtisadi inkişafın əsas amilinin özəl mülkiyyət və sahibkarlığın müxtəlif formalarının təşəkkül tapması olduğunu çox düzgün qiymətləndirən dahi şəxsiyyət Heydər Əliyev ölkədə stabilliyə nail olunan kimi sahibkarlığın inkişaf etdirilməsinə xidmət edən qərarlar qəbul etdi. Bu sahədə görülən işlərin əsl mahiyyətini qiymətləndirmək üçün ümummilli lider Heydər Əliyevin hələ 1996-cı ildə söylədiyi bir fikri yada salmaq məqsədəuyğun olardı: "Bir Prezident kimi, mən iqtisadiyyatda dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara bərabərlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılması zəruridir".

Məhz bu diqqət və qayğının nəticəsidir ki, ölkədə yerli sahibkarlıq fəaliyyəti ilbəil genişlənir, möhkəmlənir və dövlət büdcəsinin əsas gəlir mənbələrindən birinə çevrilir. Artıq başlıca məqsəd bu mühüm sahənin inkişafını genişləndirməklə ölkənin sosial-iqtisadi inkişafında əhəmiyyətini artırmaqdan ibarətdir. Bu məqsədə nail olmaq üçün dövlət başçısı möhtərəm Heydər Əliyev hələ 2002-ci ilin avqust-sentyabr aylarında altı mühüm fərman imzalamışdır. Bu tarixi fərmanların qəbul edilməsi mahiyyət etibarı ilə ölkəmizin sosial-iqtisadi durumunun keyfiyyətcə yeni inkişaf mərhələsinə qalxmasında böyük potensiala malik milli sahibkarlığın qarşısında konkret vəzifələr qoyaraq onun həlledici rolunu daha da gücləndirdi. Məhz həmin dövrdə məqsədyönümlü formada həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, artıq sahibkarlıq iqtisadiyyatın aparıcı sahələrindən birinə çevrilərək istər məşğulluğun təmin olunması, istərsə də büdcə gəlirlərinin artırılması istiqamətində öz bəhrəsini verməkdədir.

Bütün bunlarla yanaşı, ölkə rəhbərliyi, çox düzgün olaraq geniş çeşidli təbii-iqtisadi resurslarla zəngin olan Azərbaycan Respublikasının təkcə neft ölkəsi kimi tanınması ilə razılaşmır, milli istehsalın beynəlxalq bazara çıxarılması üçün mütəmadi tədbirlər görürdülər. Ümummilli liderin özünün də dəfələrlə qeyd etdiyi kimi, yalnız bu halda hər bir ölkə öz sərvətlərinin müstəqil sahibi olduğunu sübut edə bilər. Məhz bu baxımdan da

iqtisadi islahatların daha da dərinləşməsi prosesində xarici ticarətin və xarici iqtisadi əlaqələrin səmərəliliyinin artırılması, xarici ticarət mexanizminin təkmilləşdirilməsi, xaricə məhsul satışında müəssisələrin fəaliyyətinin sərbəstləşdirilməsi respublikanın valyuta ehtiyatlarının və ixracat potensialının artırılmasında onların marağının gücləndirilməsi iqtisadi sahədə dövlət siyasətinin əsas xəttini təşkil etməyə başladı.

Qeyd etmək lazımdır ki, müstəqillik əldə edildikdən sonra xarici iqtisadi, o cümlədən ticarət siyasətinin formalaşması və inkişafı, respublikamız üçün tamamilə yeni olan bu sahədə həyata keçirilən islahatlar bazar islahatlarının mühüm və ayrılmaz tərkib hissəsini təşkil edirdi. Həyata keçirilən kompleks tədbirlər nəticəsində hələ islahatların start mərhələsində xarici iqtisadi, ticarət və valyuta əməliyyatları üzərində mövcud olan dövlət inhisarı ləğv edilmişdir. Nəticədə müasir mərhələdə xarici ticarət əlaqələrinin böyük əksəriyyəti qeyri-dövlət sektoruna məxsus olan subyektlər tərəfindən aparılır. İxrac-idxal və valyuta əməliyyatları üzərində mövcud olan hərtərəfli dövlət nəzarəti xarici iqtisadi münasibətlərin dövlət tənzimlənməsi sistemi ilə əvəz edilmiş, tənzimləmə sistemində xarici iqtisadi fəaliyyət göstərən müəssisə və firmaların böyük sərbəstliyi təmin edilmişdir.

Azərbaycanda müstəqil dövlət quruculuğu, onun bazar iqtisadiyyatı prinsipləri əsasında həyata keçirilməsi və ölkəmizin beynəlxalq münasibətlər sisteminin bərabərhüquqlu üzvünə çevrilməsi respublikamızda xarici ticarətin tənzimlənməsi sistemi qarşısında da, təbii ki, olduqca mühüm və tamamilə yeni vəzifələr qoyurdu. Xarici ticarət siyasəti hər şeydən əvvəl, yuxarıda qeyd edildiyi kimi, Azərbaycan Respublikasının öz təbii sərvətləri üzərində suverenliyi prinsiplərini reallaşdırmağa xidmət edir. Bu məqsədlə xarici ticarət siyasəti ölkəmizin beynəlxalq iqtisadi və maliyyə mühitinə cəlb edilməsi və inkişaf etmiş ölkələrin bazar strukturuna yaxınlaşdırılmasını, onun sərbəst və müstəqil xarici iqtisadi fəaliyyətinin həyata keçirilməsində və tənzimlənməsində müstəsna hüququnu təmin etməli, daxili və xarici iqtisadi sahibkarlığın azadlığı prinsipinə əsaslanmalı, təsərrüfat subyektləri arasında ayrı-seçkiliyə yol vermədən onların hüquq bərabərliyi fəaliyyətinə nail olmalı və qanunun aliliyini təmin etməlidir.

"Hər şeyi kadrlar həll edir" prinsipinə əsaslanaraq ixtisaslı və bacarıqlı kadrların yetişdirilməsi, eləcə də bir komanda halında səfərbər edilməsi xüsusi idarəçilik qabiliyyəti tələb edir. Hal-hazırda Azərbaycan dövlətinin möhkəmlənməsi, inkişaf etməsi və dünyada nüfuzlu söz sahibinə çevrilməsi istiqamətində ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi altında fəaliyyət göstərən, hökumətin müxtəlif strukturlarına rəhbərlik edən insanların əksəriyyəti 1960-70-ci illərdə məhz Azərbaycan xalqının ümummilli lideri, dahi şəxsiyyət Heydər Əliyevin qayğısı sayəsində dünyanın aparıcı universitetlərində dərin biliyə, geniş dünya görüşünə və zəngin idarəçilik qabiliyyətinə yiyələnmiş insanlardır.

Azərbaycan xalqı ümummilli lider Heydər Əliyevə həm də ona görə minnətdar olmalıdır ki, o, özündən sonrakı Azərbaycanı təsadüflərin ixtiyarına buraxmadı, xalqı və dövləti idarəetməyə qadir olan gənc lideri – İlham Əliyevi yetişdirdi. Məhz ulu öndərin uzaqgörənliyi sayəsində bu gün ölkə Prezidenti cənab İlham Əliyev öz komandası ilə Azərbaycan dövlətini inkişaf etmiş ölkələrin səviyyəsinə çatdırmaq və bu inkişafı davamlı inkişafa çevirmək istiqamətində kompleks tədbirlər həyata keçirir. Bu bir həqiqətdir ki, aparılan islahatların, həyata keçirilən daxili və xarici siyasətin uğurlarında, ölkənin sosial-iqtisadi inkişafında dövlət idarəçiliyində çalışan kadrların hər birinin öz xidmətləri və məsuliyyəti vardır. Eyni zamanda, onu da qeyd etmək lazımdır ki, belə idarəetməni və onu həyata keçirmək üçün komandanı, təbii ki, yalnız dahi Heydər Əliyev məktəbini keçmiş, ondan tərbiyə almış və zəngin idarəetmə qabiliyyətinə malik olan möhtərəm İlham Əliyev formalaşdıra bilərdi.

Hazırda isə dövlətimizin sosial-iqtisadi və digər istiqamətlərdə əldə etdiyi uğurlar dünya siyasətçisi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev kimi dahi şəxsiyyətdən idarəetmə sahəsində zəngin təcrübə toplamış cənab İlham Əliyevin yüksək idarəçilik keyfiyyətləri ilə bağlıdır. Bütün bunları 2003-2008-ci illərin statistik göstəriciləri də təsdiq edir. Belə ki, möhtərəm İlham Əliyevin ilk prezidentlik dövrünü əhatə edən 2003-2008-ci illərin yekununun statistik mənzərədən başqa, simvolik mənası da vardır. Qarşıya qoyulan hər bir məqsəd, hər bir söz layihə və dövlət proqramları kimi praktik fəaliyyətdə həyata keçirilmiş, həm də son dərəcə qısa müddətdə gerçəkliyə çevrilmişdir. Belə ki, 2003-cü ilin avqust ayından keçən beş il ərzində ölkənin əsas makroiqtisadi göstəricisi olan ümumi daxili məhsulun həcmi 2003-cü ildəki 3,1 milyard manatdan 2008-ci ildə 18,5 milyard manata çatmışdır ki, bu da müqayisəli qiymətlərlə 2,7 dəfə artım deməkdir. İqtisadiyyatın dinamik inkişafında mühüm rol oynayan uğurlu fiskal siyasətin həyata keçirilməsi nəticəsində ötən beş il ərzində qeyri-neft sektoru üzrə büdcə gəlirləri 5,3 dəfə, onun ümumi daxili məhsulda xüsusi çəkisi isə 7,7 faiz artmışdır. Bu illər ərzində ölkədə vergi ödəyicilərinin sayı 2 dəfə artaraq 184 minə, onların ticarət dövriyyəsi isə 4,7 dəfə artaraq 16 milyard manata çatmışdır. Bu müddətdə Azərbaycan Respublikasının dünya iqtisadi sisteminə inteqrasiyası daha da sürətlənmiş, ticarət əlaqələri genişlənmişdir ki, bunun nəticəsində də xarici ticarət dövriyyəsi 9,9 dəfə, o cümlədən ixrac 17,5 dəfə artmışdır. Son 5 ildə əhalinin sosial rifahını xarakterizə edən

göstəricilərdə də yüksək artım dinamikası müşahidə edilmişdir. Belə ki, 2003-2008-ci illərdə orta aylıq əmək haqqı 3,3 dəfə artaraq 75 manatdan 250 manata, təyin olunmuş aylıq pensiyanın orta məbləği 3,4 dəfə artaraq 24 manatdan 80 manata, əhalinin pul gəlirləri 4,1 dəfə artaraq 9,4 milyard manata, adambaşına düşən pul gəlirləri isə 3,9 dəfə artaraq 272 manatdan 1060 manata çatmışdır. Eyni zamanda, bu illər ərzində ölkədə minimum əmək haqqı 10,9 dəfə artaraq 5,5 manatdan 60 manata bərabər olmuş, tələbələrin təqaüdləri 10 dəfə artmış, dövlət büdcəsi üzrə əməyin ödənişi fondunun məbləği 3,9 dəfə artaraq 191 milyon manatdan 741 milyon manata, əsas sosial müavinətlərə yönəldilən vəsaitlərin məbləği isə 1,6 dəfə artaraq 76,2 milyon manatdan 128 milyon manata çatdırılmışdır.

Həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, bütün dünyanı bürüyən böhran Azərbaycanda inkişaf dinamikasına ciddi təsir etməmiş və müvafiq artımlar dinamik olaraq davam etməkdədir. Dünyanın nəhəng transmilli kompaniyalarında həyata keçirilən kütləvi ixtisarlar, inkişaf etmiş dövlətlərin aparıcı firmalarının fəaliyyətini dayandırması və ya məhdudlaşdırması, beynəlxalq maliyyə təşkilatları tərəfindən reallaşdırılan bəzi layihələrin təxirə salınması və s. kimi çoxsaylı faktlar, doğurdan da son illəri böhran dövrü kimi xarakterizə etməyə tam əsas verir. Bütün bunlara rəğmən istər 2008-ci, istərsə də 2009-cu illər Azərbaycan Respublikası, milli iqtisadiyyatımız üçün nəzərəçarpacaq uğurlarla başa çatmış, ölkə iqtisadiyyatının böhran “küləyindən” məharətlə qorunması, artıq dünyanın nüfuzlu beynəlxalq təşkilatlarını, aparıcı dünya universitetlərinin iqtisadçı alimlərini təəccübləndirmişdir. Artıq bu alimlər və təşkilatlar Azərbaycan Respublikasının iqtisadi inkişaf modelini öyrənmək və digər ölkələrdə də tətbiq etmək istiqamətində müəyyən işlər görürlər. Əlbəttə, bütün bunlar, hörmətli akademik Ramiz Mehdiyevin də qeyd etdiyi kimi, azərbaycanlı alimlər qarşısında da mühüm vəzifələr yaradır. İlk növbədə ölkəmizin iqtisadi inkişaf modeli, bu modelin formalaşdırılması “alqoritmi”, səciyyəvi xüsusiyyətləri, gələcək təkmilləşdirmə imkanları və s. ətraflı şəkildə araşdırılmalı, elmi cəhətdən əsaslandırılmalı və dünyaya təqdim edilməlidir.

Azərbaycan Respublikasının müstəqillik tarixinə, iqtisadi inkişaf dinamikasına, ölkədə cərəyan edən sosial-iqtisadi və siyasi proseslərin xronologiyasına nəzər saldıqda hazırkı inkişaf modelini, tərəddüdsüz olaraq – HEYDƏR ƏLİYEV MODELİ adlandırmaq olar. Ona görə ki, əldə edilən bütün uğurlarımızın başlıca səbəbi xalqımızın dahi oğlu, ümummilli lideri Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi bir dövrə təsadüf edir və bütün uğurlar, məhz bu unudulmaz insanın əvəzsiz zəhməti və təşəbbüsü ilə reallaşdırılan beynəlxalq müqavilələrin, sosial-iqtisadi və siyasi arenada yüksək iradə və qətiyyətlə həyata keçirilən islahatların nəticələridir. Bu gün isə inamla həyata keçirilən Heydər Əliyev strategiyasının nəticəsi olaraq Azərbaycan Respublikası müstəqilliyin möhkəmləndirilməsi, ölkədə tarazlı inkişafın təmin edilməsi istiqamətində atılan addımlar və analoqu olmayan iqtisadi uğurlar ilə beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilmişdir. Azərbaycan Respublikası beynəlxalq aləmə sürətlə inteqrasiya edən, dinamik iqtisadi inkişafını və siyasi stabilliyini təmin etmiş müstəqil bir dövlətdir. Artıq ana vətənimiz Azərbaycan mötəbər kürsülərdən öz sözünü deməyə, öz haqlı mövqeyini bildirməyə və qorumağa qadir olan, zəngin iqtisadi potensiala malik bir dövlətdir. Müstəqilliyin ilk illərində məlum səbəblərdən bərbad hala düşmüş ölkə iqtisadiyyatında tərəqqiyə nail olunmasına, çox kövrək, zəif və xaotik dövlət siyasətinin güclü və aparıcı mövqeyə yüksəlməsinə, eləcə də vahid məqsədə xidmət etməsinə, qədim tarixi və çoxəsrlik zəngin mədəniyyəti olan uca millətimizin bütün dünyada tanıdılması istiqamətində yorulmaz fəaliyyətinin nəticələrinə, eləcə də ana vətənə, heç kəsə nəsib olmayan, uzunmüddətli məharətlə başçılıq etdiyinə görə hələ uzun illər öncədən qədirbilən xalqımızın qəlbində əvəzsiz dövlət xadimi qiymətini almış ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi müxtəlif dövrlərdə müəyyənləşdirdiyi və həyata keçirdiyi strategiya bütün sahələrdə əldə edilən uğurlarımızın əsasını təşkil edir.

“**Xalq qəzeti**”.-2010.-6 may.-N 97.-S.3.

# AZƏRBAYCAN SAHİBKARLARININ HİMAYƏDARI

**İnqilab HƏZİYEV,**
Yeni Azərbaycan PartiyasınınÜzvü,
"100 il Qarant" MMC-nin təsisçisi

**Xalqların, dövlətlərin tarixində görkəmli şəxsiyyətlərin, siyasi liderlərin rolu əvəzsizdir. Qədim, zəngin tarixə malik xalqımız zaman-zaman parlaq simalar, görkəmli sərkərdələr, ictimai-siyasi xadimlər yetişdirmişdir. Xalqımızın milli qürur mənbəyinə çevrilmiş belə insanlar çətin tarixi anlarda xalqa arxa, dayaq olmuş, xilaskarlıq missiyasını öz üzərlərinə götürərək şərəfli ömür yaşamışlar. Bu barədə söhbət açarkən ilk növbədə, dərin zəka sahibi, xalqımızın ümummilli lideri Heydər Əliyevin örnək ömür yolu, titanik siyasi fəaliyyəti gözümüz önündə canlanır.**

Görkəmli siyasətçi, müasir Azərbaycan dövlətçiliyinin banisi, bacarıqlı dövlət xadimi Heydər Əliyev bütün mənalı ömrünü canından da artıq sevdiyi Vətəninin çiçəklənməsinə, qüdrətlənməsinə həsr etmişdir. Təsadüfi deyil ki, çağdaş tariximizin 40 ildən artıq bir dövrü ulu öndər Heydər Əliyevin adı, onun titanik siyasi fəaliyyəti, ağıllı, düşünülmüş ideyaları ilə bağlıdır. Bəlkə də dünyanın elə bir siyasi lideri yoxdur ki, ayrı-ayrı tarixi məqamlarda xalqına, dövlətinə iki dəfə rəhbərlik etmək ona nəsib olsun və hər dəfə də xilaskarlıq missiyasını şərəflə yerinə yetirə bilsin. Məhz ümummilli liderimiz böyük strateq kimi iki antaqonist tarixi formasiyada, müxtəlif ictimai-iqtisadi sistemdə Azərbaycana inamla rəhbərlik etmiş, respublikamızın çiçəklənməsinə, xalqımızın firavan həyatının təminatına nail olmuşdur.

Hələ uzaq 1969-cu ildə Azərbaycanda siyasi rəhbərliyə irəli çəkilən Heydər Əliyev keçmiş İttifaqın xammal bazasına çevrilmiş respublikamızı böyük inkişaf yoluna çıxarmışdır. Məhz ulu öndərin işləyib hazırladığı yeni inkişaf strategiyasının nəticəsi olaraq geridə qalmış Azərbaycan qısa müddətdə İttifaqın qabaqcıl respublikalarından birinə çevrilmişdir. Ümummilli lider Heydər Əliyevin qətiyyəti, iradəsi və şəxsi təşəbbüskarlığı nəticəsində SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri məhz Azərbaycanda inşa olunmuş, bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsasları formalaşdırılmışdır.

Totalitar sovet rejiminin iflasa uğraması, millətlər həbsxanasına çevrilmiş imperiyanın zəifləməsi xalqların, millətlərin azadlıq, müstəqillik istəyinin güclənməsinə səbəb oldu. Uzun illər respublikamıza əsl xammal mənbəyi kimi baxan, yeraltı və yerüstü sərvətlərimizi sümürüb aparan, bunun müqabilində isə xalqımıza yuxarıdan aşağı baxan sovet imperiyasının düşdüyü bu acınacaqlı, rəzalətli günlərində nankor qonşumuz Ermənistan torpaqlarımıza göz dikdi, üstümüzə ayaq açıb yeriməyə başladı. Mərkəzi hökumətin seyrçi mövqeyi, təcavüzkara gizli, bəzən də açıq dəstək verməsi xalqın səbir kasasını daşdırdı, Azərbaycanda etiraz dalğası gücləndi. Xalqımız bir yumruq kimi birləşərək imperiyaya "yox" dedi.

Hələ hadisələrin ilk günlərindən Azərbaycan xalqının yetişdirdiyi böyük siyasətçi, fenomenal şəxsiyyət Heydər Əliyevi mərkəzi hakimiyyətin ali idarəetmə orqanı olan siyasi aparatdan uzaqlaşdıran Qorbaçov hökuməti Kremldə hazırlanmış təcavüzkara dəstək planının asanlıqla həyata keçməsini zənn edirdi. Ancaq imperiya başbilənləri bu sərsəm planı düşünərkən xalqımızın mübarizə əzmini nəzərə almamışdılar. Məhz bunun nəticəsi idi ki, sonralar mərkəzi hakimiyyət silaha əl atmasına baxmayaraq, Azərbaycan xalqının iradəsi, qətiyyəti qarşısında geri çəkilməyə məcbur oldu. Xalqın milli-azadlıq hərəkatı onun müstəqillik, suverenlik arzusunu reallaşdırdı. XX əsrdə Azərbaycan xalqı ikinci dəfə müstəqillik əldə etdi.

Bununla belə, müstəqilliyin ilk illəri xalqımız üçün, respublikamız üçün çox çətin və təlatümlü keçirdi. Bir tərəfdən təcavüzkar Ermənistanın işğalçılıq siyasəti, digər tərəfdən daxildə separatizm meyillərinin güclənməsi, respublikada hökm sürən anarxiya, hakimiyyət davası dövlətçiliyimizi, müstəqilliyimizi dərin təhlükə qarşısında qoymuşdu. Buna baxmayaraq, xalq bu sınaqdan da üzüağ çıxmağı bacardı, Azərbaycanın xilaskar oğlu Heydər Əliyev hakimiyyət sükanı arxasına dəvət olundu. Xalqın təkidli tələbi və xahişi ilə paytaxta gələn ulu öndər "mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" deyərək xilaskarlıq missiyasını şərəflə öz üzərinə götürdü. Belə bir çətin tarixi məqamda çiynini ağır bir yükün altına verən Heydər Əliyev qısa müddətdə ölkədə siyasi sabitliyə nail oldu.

Ulu öndər gənc, müstəqil Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi sahəsində gərgin iş apardı, islahatların hüquqi bazası yaradıldı. İqtisadiyyatdakı tənəzzülün qarşısını almaq üçün mühüm qanunlar işlənib hazırlandı, uğurlu makroiqtisadi sabitləşdirmə siyasəti nəticəsində ölkədə tüğyan edən inflyasiyanın qarşısı alındı. Azərbaycanın o dövrkü məhdud imkanlarını nəzərə alan Heydər Əliyev yaxşı bilirdi ki, iqtisadiyyatın bütün sahələrini paralel şəkildə inkişaf etdirmək mümkün deyil. Məhz buna görə də ümummilli lider tarixi müstəqilliyinə qovuşduqdan sonra xalqımızın tam sahibi olduğu karbohidrogen ehtiyatlarından səmərəli istifadəni önə çəkdi. Bu məqsədlə ölkənin mükəmməl, bitkin yeni neft strategiyası işlənib hazırlandı.

Heydər Əliyevin siyasi uzaqgörənliyi və müdrik qərarlar qəbul etmək məharətinin nəticəsi olaraq dünyanın iri neft şirkətlərini danışıq masası ətrafına toplamaq mümkün oldu. Azərbaycanda investisiyaların və biznes fəaliyyətinin qarantı üçün möhkəm zəmin yaradıldığına əmin olan iri neft istehsalçıları ölkəmizin neft sənayesinə vəsait yönəltməyi qətiləşdirdilər. Belə bir şəraitdə, 1994-cü il sentyabr ayının 20-də Bakıda Xəzər hövzəsində beynəlxalq əməkdaşlığın əsasını qoymuş "Əsrin müqaviləsi" imzalandı. Bununla da, Azərbaycanın gələcək inkişafının fundamental bünövrəsi qoyuldu, ölkəmiz xarici investisiyalar üçün açıq elan olundu. Artıq 15 ildən çoxdur ki, Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyası Azərbaycan xalqının firavanlığının təminatına, ölkəmizin iqtisadi qüdrətinin və beynəlxalq nüfuzunun artmasına xidmət edir.

Ümummilli liderimiz Heydər Əliyevin iqtisadi strategiyasının əsas istiqamətlərindən biri də Azərbaycanda sahibkarlığın, özəl bölmənin inkişaf etdirilməsindən ibarət idi. Azərbaycan iqtisadiyyatını dirçəltməyin əsas yollarından birinin ölkədə sahibkarlığın inkişaf etdirilməsində görən ulu öndər bu məqsədlə bir sıra vacib sənədlərə imza atdı. Bununla da, iqtisadiyyatın sərbəstləşdirilməsini, bazar iqtisadiyyatı prinsiplərinin əsas tutulmasını rəsmiləşdirən Heydər Əliyev ölkədə iqtisadi fəallığın artmasını, insanlarda işgüzarlıq hissinin güclənməsini təmin etdi. Azərbaycan iqtisadiyyatının liberallaşdırılması, bazar iqtisadi münasibətlərinin bərqərar olunması, ölkədə sabaha ümidlə baxan sahibkarlar ordusunun yaranmasına gətirib çıxardı.

Azərbaycanın siyasi və iqtisadi müstəqilliyinin dönməz və əbədi olacağını bəyan edən ümummilli lider sahibkarlığın inkişafına xüsusi önəm verdiyini bildirərək demişdir: "Azərbaycanın hər bir sahibkarı özünü respublika iqtisadiyyatının bir hissəsi bilməli və ölkənin iqtisadi tərəqqisi üçün səylər göstərməlidir. Məhz belə sahibkarlar uğurla fəaliyyət göstərə bilər, girişdikləri məsələlərlə sərbəst məşğul ola bilər, öz iqtisadi, intellektual potensialından heç bir məhdudiyyət olmadan istifadə etmək imkanına malik olar, eyni zamanda, Azərbaycanda sahibkarlığın bazar iqtisadiyyatının inkişafına, böhranın aradan qaldırılmasına kömək edə bilərlər… Mən sahibkarlıq fəaliyyəti ilə məşğul olan hər bir Azərbaycan vətəndaşına məhz belə yanaşıram, onlara öz ehtiramımı bildirir, onların fəaliyyətinə səmimi münasibət göstərirəm". Mənə elə gəlir ki, ümummilli liderimizin hələ 1994-cü ildə söylədiyi bu kəlamlar hazırda Azərbaycan iqtisadiyyatının 85 faizdən çoxunu təşkil edən özəl bölmənin inkişafının, sahibkarlar ordusunun güclənməsinin möhtəşəm təməlini qoydu.

Heydər Əliyev daim iş adamlarının mənəvi hamisi kimi çıxış edərək onların üzləşdikləri problemin aşkarlanması məqsədilə dövlət-sahibkar dialoqunun genişləndirilməsinə çalışırdı. Məhz bu məqsədlə 2002-ci ilin 25 aprel və 15 may tarixlərində yerli və xarici iş adamları ilə görüşən ulu öndərimiz sahibkarları üzləşdikləri problemlər barədə açıq danışmağa dəvət etdi, onları səbr və təmkinlə dinləyərək mövcud çətinliklərin, ölkədə özəl bölmənin inkişafına mane olan süni əngəllərin dərhal aradan qaldırılması üçün aidiyyəti dövlət qurumlarına konkret tapşırıqlar verdi. Həmin tarixi görüşlərin nəticəsi olaraq imzalanmış bir sıra fərman və sərəncamlarla Azərbaycanda sahibkarlığın dəstəklənməsi və investisiya mühitinin daha da təkmilləşdirilməsi baxımından keyfiyyətcə yeni mərhələnin təməli qoyuldu. Bununla da, ölkədə əsassız yoxlamaların, sahibkarlığın inkişafı yolunda buxova çevrilmiş maneələrin qarşısı alındı.

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dövr böyük tikinti-quruculuq işləri ilə əlamətdar olmuşdur. Belə ki, 1969-cu ildə respublika rəhbərliyinə təyin olunan Heydər Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, rabitə, elm, təhsil, səhiyyə və mədəniyyət sahələrində böyük bir intibah baş verdi, infrastruktur imkanları genişləndi. Qısa müddətdə Azərbaycanda 250-dən çox nəhəng sənaye obyekti tikilib istifadəyə verildi, respublikamızda mənzil tikintisi xeyli sürətləndi.

Ümummilli liderimizin Azərbaycana rəhbərliyinin ikinci dövründə də tikinti-quruculuq və abadlıq işləri, infrastruktur layihələrinin reallaşdırılması ümumi inkişafın prioritet istiqamətlərindən biri kimi diqqət mərkəzində saxlanıldı. Heydər Əliyevin xüsusi diqqət və qayğısı sayəsində ölkənin tikinti kompleksi yeni inkişaf dövrünə qədəm qoydu. Ölkədə yaradılmış əlverişli biznes mühiti, sahibkarlığın inkişafına göstərilən dövlət qayğısı inşaat sektorunda iqtisadi fəallığın, təşəbbüskarlığın artmasına səbəb oldu. Sevindirici haldır ki, zəngin ənənələrə malik inşaat sektoru, xüsusən də mənzil tikintisi, əsasən, yerli iş adamlarının əlində cəmləşdi. Paytaxt Bakıda, eləcə də ölkəmizin digər şəhər və rayon mərkəzlərində bir-birindən yaraşıqlı çoxmərtəbəli yaşayış binaları tikilib istifadəyə verildi. İndi hər birisi nadir memarlıq incisi sayıla biləcək bu binalar paytaxtımıza, digər şəhərlərimizə xüsusi yaraşıq verir. Digər sevindirici məqam isə ondan ibarətdir ki, tikinti sektorunun inkişafı ölkədə çoxsaylı iş yerlərinin açılmasına imkan yaratdı.

Bu yerdə ulu öndər Heydər Əliyevin 2002-ci ilin yanvar ayında söylədiyi bir fikri xatırlatmağı vacib sayıram. Bakının ən hündür yerindən paytaxtın mənzərəsini seyr edən ulu öndər yeni inşa olunmuş çoxmərtəbəli binaların şəhərimizə xüsusi gözəllik verdiyini bildirərək demişdir: "… Biz sovet dövründə çox evlər, binalar tikmişik. Ancaq indi özəl sektor onlardan daha yaxşı, gözəl tikir. Həm də şəhəri gözəlləşdirirlər. Demək, bazar iqtisadiyyatı var, özəl sektor inkişaf edir, insanların alıcılıq qabiliyyəti var. Belə mənzillər alıb yaşaya bilirlər.

Ona görə də inşaat biznesi çox geniş inkişaf edibdir. Belə görürəm ki, bizdə ən geniş inkişaf edən inşaat biznesidir… Bu evlərin tikintisində nə qədər insanlar – inşaatçılar, fəhlələr işləyibdir və bu gün də işləyirlər, maaş alırlar. Mən bunu çox təqdir edirəm. Çünki birincisi, yeni iş yerləri açılır, ikincisi biznes inkişaf edir, özəl sektor inkişaf edir… Bunların hamısı da ümumiyyətlə, şəhərin gözəlliyini təmin edir, memarlıq, şəhərsalma barədə bizim planlarımızın həyata keçirilməsini təmin edir. Bu, çox yaxşı haldır".

Ümummilli liderimizin müəyyən etdiyi siyasi kurs, ölkəmizin gələcək inkişafına, xalqımızın firavan həyatının təminatına yönəldilmiş sosial-iqtisadi strategiya hazırda dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz bunun nəticəsidir ki, son illər Azərbaycanın iqtisadi qüdrəti və beynəlxalq nüfuzu getdikcə artır, xalqın həyat səviyyəsi anbaan yaxşılaşır. Bu gün Azərbaycan iqtisadiyyatının prioritet istiqamətlərindən biri kimi qeyri-neft sektorunun inkişafına xüsusi diqqət və qayğı göstərən möhtərəm Prezidentimiz ölkə sahibkarlarının da himayədarı kimi çıxış edir. Təsadüfi deyil ki, dövlət başçısı bu yaxınlarda "Sahibkarlıq sahəsində yoxlamaların nizama salınması və istehlakçıların hüquqlarının qorunmasının təmin edilməsinə dair bəzi tədbirlər haqqında" Fərman imzalamışdır. Şübhəsiz, Prezidentimizin belə bir vacib sənədə imza atması özəl sektorun daha da inkişaf etməsinə səbəb olacaq. Bütün bunlar biz iş adamlarını daha da ümidləndirir, ölkəmizin sosial-iqtisadi inkişafına yeni-yeni töhfələr verməyə sövq edir.

"**Xalq qəzeti**".-2010.-6 may.-N 97.-S.6.

# DEMOKRATİK KONSTİTUSİYANIN MÜƏLLİFİ

**Ziyafət ƏSGƏROV,**
Milli Məclis Sədrinin birinci müavini,
YAP Siyasi Şurasının üzvü

**Hüquqi xüsusiyyətlərindən biri sabitlik olmaqla konstitusiya uzun müddət üçün nəzərdə tutulmuş hüquqi aktdır. Sabitlik dedikdə, hüquqi qaydanın bu və ya digər müddətdə olan vəziyyəti başa düşülür. Sabit sistem nisbətən uzun müddət ərzində oxşar münasibətləri saxlamaq bacarığına malikdir. Bu sistemin daxili quruluşunda mövcud qarşılıqlı əlaqələr və komponentlər müəyyən zaman kəsiyində davamlı olmaqla başqa bir zaman kəsiyində cəmiyyətdə baş verən əhəmiyyətli inkişafın təsirinə məruz qala bilər. Məhz belə bir inkişaf konstitusiyaya müvafiq dəyişikliklərin və əlavələrin edilməsini şərtləndirir.**

Dövlət orqanlarının fəaliyyətini müəyyən çərçivəyə salan konstitusiya normalarının sabitliyində hər bir dövlətin böyük marağı var. Konstitusiyanın sabitliyi hüquq subyektləri arasında qarşılıqlı əlaqələrin davamlığında, daima və məqsədyönlü şəkildə ictimai münasibətlərə və vətəndaşların hüquq düşüncəsinə etdiyi təsirdə özünü göstərir. Sabitlik hüquq sisteminin özəyi olan konstitusiyanın mahiyyəti, konstitusiya quruluşunun demokratik təbiəti, hüquq institutlarının, vətəndaş cəmiyyətinin norma və qaydalarının, habelə konstitusiya ilə nizama salınan əsas ictimai münasibətlərin davamlığı ilə şərtlənir.

Sabitlik qanunçuluq rejiminin, dövlət hakimiyyətinin təşkil olunması və həyata keçirilməsinin, şəxslə dövlət arasındakı münasibətlərin davamlığını ifadə edən əsas şərtdir. Konstitusiyanın sabitliyi heç də onun ayrı-ayrı müddəalarının dəyişməzliyi demək deyil. Konstitusiyanın mətninə əlavələrin və dəyişikliklərin edilməsini nəzərdə tutan hər hansı bir qayda olmadan konstitusiya quruluşunun və hüquq sisteminin sabitliyini təsəvvür etmək qeyri-mümkündür. Obyektiv sosial şərait, konkret tarixi inkişaf bunu tələb etdikdə konstitusiyaya dəyişikliklər və əlavələr edilməlidir. Azərbaycan Respublikası Konstitusiyasının XI (Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər) və XII (Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr) fəsillərində Konstitusiyaya dəyişikliklər və əlavələrin edilməsi müstəqil qaydalar kimi təsbit olunmuşdur.

Müasir siyasi-hüquqi ədəbiyyatda konstitusionalizm anlayışına münasibətdə müxtəlif yanaşmalar mövcuddur. Bəzi ədəbiyyatlarda konstitusionalizm konstitusiya ilə məhdudlaşdırılan dövlət idarəçiliyi, bəzilərində dövlətin əsas qanunu olmaqla konstitusiyaya dair elm, bəzilərində isə konstitusiya idarə üsullarına əsaslanan siyasi sistem kimi izah edilir. Geniş mənada konstitusionalizm yuxarıda qeyd olunan bütün əlamətləri özündə ehtiva edir. Konstitusionalizm anlayışının çoxmənalığını vurğulamaqla qeyd etmək lazımdır ki, o, istibdadın qarşısının alınmasına, insan hüquq və azadlıqlarının müdafiəsinin təmin edilməsinə yönələn, dövlət hakimiyyətinin təşkil edilməsi prinsiplərini müəyyən edən xüsusi hüquqi ideologiyadır. Tarixən konstitusionalizm ideologiya və nəzəriyyə olaraq konstitusiyanın meydana çıxmasını şərtləndirmişdir. Burjua mütəfəkkirlərinin dini ideologiyaya və feodalizmə qarşı mübarizəsi zamanı dünyəvi dövlətin və hüququn, şəxsiyyətin və dövlətin qarşılıqlı münasibətlərinin, hakimiyyətin bölünməsinin və hüququn aliliyinin nəzəri əsasları işlənib hazırlanmışdır. Bu konsepsiyalar siyasi-hüquqi praktikada yer almamışdan çox-çox əvvəl onlar burjua konstitusionalizminin və hüquqi dövlətin formalaşması istiqamətində gələcəkdə baş verəcək dəyişikliklərin ideoloji və nəzəri əsaslarını təsbit edirdi. Bu baxımdan konstitusionalizmi yalnız konstitusiyanın mövcudluğu ilə əlaqələndirmək və onun mahiyyətini belə bir nöqteyi-nəzərdən izah etmək düzgün hesab edilə bilməz.

Konstitusionalizmin siyasi-hüquqi mahiyyəti birbaşa konstitusiya münasibətlərinin sabit inkişafı ilə bağlı olaraq aşağıdakı prinsiplərlə xarakterizə olunur: qanunçuluq rejiminin sabitliyi, insan hüquqlarının və azadlıqlarının aliliyi, hakimiyyətin bölünməsi, vətəndaşları qarşısında dövlətin məsuliyyəti, konstitusiya nəzarətinin həyata keçirilməsi mexanizminin müəyyən edilməsi və sair. Bu prinsiplərin hər biri konstitusiyanın inkişafına zəmin yaradır. Bu baxımdan hüquqi dövlətin inkişafında konstitusionalizmin yeri və rolu aydınlaşdırılarkən konstitusiyanın əhəmiyyəti xüsusi vurğulanmalıdır. A. Şayo qeyd edir ki, konstitusionalizm – ictimai sabitlik məqsədi ilə hakimiyyətin məhdudlaşdırılması prosesidir. Lakin bütün hallarda hakimiyyətin məhdudlaşdırılması ictimai sabitliyə təminat kimi çıxış edə bilməz. Şübhəsiz, səmərəli və operativ idarəçilik naminə həyata keçirilən hakimiyyət məhdudlaşdırılması ictimai sabitliyin tələblərinə cavab verə bilər.

İnkişaf etmiş demokratik dövlətlərdə konstitusionalizmin təşəkkül tarixinin tədqiqi onun 3 inkişaf mərhələsini müəyyən etməyə əsas verir: antik konstitusionalizm, orta əsrlər konstitusionalizmi və müasir konstitusionalizm.

Müasir konstitusionalizmin genezisi dövlətlərin ictimai-siyasi inkişaf tarixi ilə bağlıdır. Onun inkişaf prosesi demək olar ki, XVIII əsrin axırlarından (Avropada burjua inqilabları zamanından) başlamışdır. Konstitusionalizmin siyasi-hüquqi ideologiya kimi Avropanın bir sıra dövlətlərində inkişaf etməsi və özünütəsdiqi Şimali Amerikada həmin ideologiyanın qəbul olunmasını şərtləndirdi. Beləliklə, konstitusionalizm ideologiyasının praktiki nəticəsi olaraq ilk yazılı konstitusiya 1787-ci ildə Amerika Birləşmiş Ştatlarında qəbul edildi. Azad cəmiyyətdə fərdin azad şəkildə inkişaf prinsiplərini və hakimiyyətin demokratik əsaslarla formalaşmasını müəyyən edən müasir konstitusionalizm ideologiyası tədricən müxtəlif xalqların və millətlərin şüurunda həkk olunaraq ümumi yaşama tərzinə çevrilirdi. Bu səbəbdən müxtəlif ölkələrdə həmin yaşam tərzini təmin edən əsas qanun-konstitusiyalar qəbul edilirdi.

Konstitusionalizm ideologiyasının inkişafı prosesində sosialist ölkələrində konstitusiyanın mahiyyəti formal xarakter daşıyırdı. Konstitusiya hüququ elmində əsas meyar kimi konstitusiya normalarının reallığı əsas götürülərək formal və faktiki konstitusiyalar fərqləndirilir. Hüquqi dövlətə xas olan konstitusiyanın əsas cəhəti onun reallığıdır. Əgər konstitusiya və mövcud reallıqlar vəhdət təşkil edirsə, konstitusiya normalarının cəmiyyətin sosial-iqtisadi inkişaf şərtlərinə uyğunluğu təmin edilirsə, bu halda konstitusiyanın reallığından danışmaq olar. Konstitusiyanın reallığı iqtisadi, siyasi və sosial sabitliyin təmin olunmasından, qanunçuluq rejiminin davamlığından daha çox asılıdır. Konstitusiyanın əsas cəhəti olmaqla reallıq bir neçə amillərdən ibarətdir. Bunlar aşağıdakılardır:

1) mövcud tarixi mərhələdə formalaşmış ictimai münasibətlərin xarakterinə konstitusiya normalarının uyğun olması;

2) konstitusiyada ölkənin tarixi, siyasi, sosial və iqtisadi xüsusiyyətlərinin nəzərə alınması;

3) konstitusiya normalarının tətbiqi zamanı sosial nəticələrin qabaqcadan proqnozlaşdırılması;

4) konstitusiyanın təmin edilməsi.

Konstitusiyanın reallığı xalq hakimiyyətinin hüquqi və təşkilatı təminatını, onların həyata keçməsi mexanizminin səmərəliyini, vətəndaşlarda yüksək siyasi şüurun, sosial fəallığın və hüquq mədəniyyətinin olmasını tələb edir.

Formal konstitusiyalar dedikdə, ictimai-siyasi vəziyyəti, ictimai münasibətlərin xarakterini, idarəetmə münasibətlərini olduğu kimi əks etdirməyən dövlətlərin əsas qanunları başa düşülür.

Konstitusionalizm ideologiyasının inkişafı prosesində sosialist ölkələrində konstitusiyanın mahiyyəti formal xarakter daşıyırdı. Vaxtilə sosializm düşərgəsinə aid olan ölkələrin konstitusiyalarında fərdin qanunlara deyil, daha çox dövlətin siyasi iradəsinə tabeçiliyi, konstitusiya normaları ilə bəyan edilən insan hüquq və azadlıqlarının formal xarakter daşıması və onların gerçəklikdən uzaq olması müasir konstitusionalizm prinsiplərinə tam zidd idi.

Formal konstitusiyaları olan dövlətlərdə iqtisadi, siyasi və sosial sabitlik zahiri xarakter daşıyır. İnsanların şüurunda kök salmış azad yaşamaq ideyasının gerçəkləşməsinə və onların özünütəsdiqinə mane olan bu dövlətlərdə mövcud münasibətlərin gerçək xarakteri ilə onların zahiri görünüşü arasındakı ziddiyyətlər daim dərinləşməkdə idi. Məhz bu ziddiyyətlərin kəskinləşməsi sosializm düşərgəsinə aid olan ölkələrin XX əsrin sonunda tamamilə yeniləşməsinə təkan verdi. Belə yeniləşmə həmin ölkələrdə müasir konstitusionalizm prinsiplərinə cavab verən konstitusiyaların qəbul olunması ilə nəticələndi. Artıq 100-dən çox ölkədə yeni konstitusiyalar qəbul edilmişdir. Bu konstitusiyalarda müasir konstitusionalizmin prinsipləri və dəyərləri bərpa olunmuşdur.

Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyasında konstitusionalizmin ilkin ideyaları öz əksini tapmışdır: insan hüquq və azadlıqlarının üstünlüyü, siyasi plüralizm, hakimiyyət bölgüsü, konstitusiya nəzarət institutu və sair. Hər bir müstəqil konstitusiya kimi, Azərbaycan Respublikasının Konstitusiyası da gərgin siyasi mübarizə nəticəsində meydana gəlmişdir. Sovetlər İttifaqı dağıldıqdan sonra keçmiş müttəfiq respublikalar öz müstəqilliklərini bərpa etdilər. Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il avqustun 30-da qəbul etdiyi "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Bəyannamə müstəqillik uğrunda aparılan mübarizənin yekunu idi. Lakin müstəqilliyin qorunması, müstəqil hüquq sisteminin yaradılması, müstəqil hakimiyyət institutlarının təsisatı daha mürəkkəb proses idi. XX əsrin 90-cı illərinin əvvəlində bir tərəfdən hakimiyyət qüvvələrinin səriştəsizliyi, digər tərəfdən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi konstitusiya münasibətlərinin möhkəmlənməsinə imkan vermirdi. Müstəqilliyin qorunması böyük təhlükə altında idi. O zaman konstitusiya-hüquq münasibətlərinin təminatı üçün demokratik qüvvələrin siyasi iradəsi tələb olunurdu. Hakimiyyət institutları səmərəli iş rejiminə keçməli, möhkəmlənməli və hüquq qorunmalı idi. Bu cür vəziyyətdə ümumilikdə xalqın siyasi iradəsinin açıq bəyan edilməsi lazım idi. Xalqımızın qabaqcıl ziyalıları bu iradəni göstərərək seçim etdilər. 1993-cü ilin iyununda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Bakıya dəvət olundu və Ali Sovetin sədri seçildi.

Peşəkar siyasətçi kimi Heydər Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən dövlətin əsas qanununun işlənib hazırlanması haqqında düşünürdü. Suveren və müstəqil Azərbaycan dövlətinin ilk milli Konstitusiyasının qəbul edilməsi sahəsində mühüm tədbirlərdən biri Milli Məclisin Azərbaycan Respublikasının milli Konstitusiyası layihəsinin hazırlanması haqqında 1993-cü il 6 dekabr tarixli qərarı oldu. Lakin həmin qərar əsasında yaradılan Müvəqqəti Komissiya bu işi görə bilmədi. Çünki Azərbaycanın tarixində mürəkkəb, çətin, ağır günlər yaşanılırdı. Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi genişlənir, sosial problemlərin sayı artır, bütün bunların həlli yolları isə tapılmırdı. Bu çətin vəziyyətdən xalqı yalnız Heydər Əliyevin müdrik siyasəti çıxara bilərdi. Xalqımızın ümummilli lideri Heydər Əliyev cəbhə bölgəsində atəşkəsə nail olaraq öz fəaliyyətini ölkənin iqtisadi və siyasi cəhətdən güclənməsinə yönəltdi. Bu isə öz növbəsində müstəqilliyin qorunmasına və konstitusiya münasibətlərinin bərqərar olmasına zəmin yaratdı.

Azərbaycanın ilk milli Konstitusiyasının yaranması ərəfəsində hələ 1978-ci il tarixli sovet Konstitusiyası qüvvədə idi. Əlbəttə, dərin zəkaya malik olan böyük ictimai-siyasi xadim, ümummilli lider Heydər Əliyev bilirdi ki, Azərbaycanın daimi müstəqilliyinin təminatı üçün yeni ruhda yazılan və azad xalq tərəfindən qəbul edilən müasir Konstitusiyaya ehtiyac var. Ona görə 2 may 1995-ci ildə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın tərkibi təsdiq edildi. Komissiyanın tərkibinə tanınmış ictimai-siyasi xadimlər, alimlər, peşəkar hüquqşünaslar daxil oldu. Komissiyanın sədri isə ulu öndər Heydər Əliyev seçildi. Çox qısa bir müddətdə inkişaf etmiş demokratik ölkələrin konstitusiya quruculuğu təcrübəsi öyrənildi, təhlil olundu. Layihə hazırlandı, ictimai müzakirəyə təqdim olundu və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edildi.

Konstitusiya dövlətin özünəməxsus atributu olmaqla sosial və siyasi qüvvələrin nisbətini, cəmiyyətin vəziyyətini, inkişaf meyillərini ifadə edir. Konstitusiya cəmiyyətin və dövlət quruluşunun əsaslarını müəyyən edən ictimai münasibətləri nizama salır. Bu münasibətlərdə dövlətin keyfiyyət xarakteri – suverenliyi, idarəetmə forması, dövlət quruluşunun forması, dövlət hakimiyyətinin subyektləri, yəni cəmiyyətin siyasi sisteminin ümumi əsasları əksini tapmışdır.

İqtisadi sistemin əsasları, yəni mülkiyyət formaları, azad sahibkarlığın və bazar münasibətlərinin inkişafına təminat müəyyən edilmədən cəmiyyət həyat qabiliyyətli ola bilməz. Cəmiyyət onun üzvlərinin hüquqi statusunun əsasları müəyyən edilmədən vahid orqanizm kimi fəaliyyət göstərə bilməz. Hər bir cəmiyyətin məğzini təşkil edən insanlar arasındakı münasibətlər müxtəlif olmaqla cəmiyyətin həyat fəaliyyətinin bütün sahələrində özünü göstərir. Bu baxımdan konstitusiyanın ali hüquqi sənəd kimi mövcudluğu hüquq sistemində xüsusi yer tutur. Bunu daha aydın olaraq normativist məktəbinin tərəfdarları izah edirlər. Məsələn, H. Kelzen qeyd edir ki, nə ideoloji, nə də sosioloji aspekt hüquq nəzəriyyəsini maraqlandırmamalıdır. Hüquq sisteminin ilkin bazasını əsas norma təşkil etməlidir. Deməli, hər bir siyasi sistem öz dəyərlərini əsas hüquqi sənəddə əks etdirməlidir. Əks halda bu dəyərlərin zamana görə ictimai münasibətlərə təsiri azalmağa yönələcək. Konstitusiya isə cəmiyyətdə ali dəyərləri cəmləşdirən, onlara hüquqi qüvvə verən aktdır. Bununla bağlı Azərbaycan Konstitusiyasının normativ-hüquqi xüsusiyyəti ayrıca qeyd olunmalıdır. İlk növbədə Azərbaycan Respublikasının Konstitusiyası yazılı sənəd kimi hüquqi funksiyalara malikdir və bütövlükdə hüquq sisteminə, qanun yaradıcılığı prosesinə çox ciddi təsir göstərir. Digər tərəfdən, konstitusiya birbaşa hüquqi qüvvəyə malikdir (Konstitusiyanın 147-ci maddəsi). Ulu öndər Heydər Əliyev sədrlik etdiyi Konstitusiya Komissiyasının üzvlərinə belə tövsiyə edirdi: “Azərbaycanın Konstitusiyasında ümumbəşəri dəyərlər, müasir demokratik dövlətlərin konstitusiyalarında olan müddəalar öz əksini tapmalıdır”. Beləliklə, biz universal bir sənəd əldə edə bildik. Konstitusiyamızda olan ali dəyərlərin qorunması və bu dəyərlərin cəmiyyətimizin demokratik yolla inkişafına xidmət etməsi perspektivi açıldı.

Azərbaycan Respublikasının Konstitusiyası ictimai həyatın hər bir sahəsinə təsir göstərərək müasir dövrdə siyasi sabitliyin təmin olunmasında vacib hüquqi vasitəyə çevrilmişdir. Konstitusiya münasibətlərinin sabit inkişafına nail olunması hər bir hüquqi demokratik dövlətin vəzifəsidir. Konstitusiya insan hüquqlarının aliliyini bəyan etməklə avtomatik olaraq onların faktiki təminatına zəmanət verə bilməz. İnsan hüquqlarına hörmət, onların qorunmasına şərait konstitusionalizm sistemi mövcud olan ölkədə reallaşa bilər.

Demokratik, hüquqi dövlət qurmaq, vətəndaş cəmiyyətini formalaşdırmaq insan hüquqları amili nəzərə alınmadan mümkün deyil. Xalqın iradəsi üzərində qurulan hər bir dövlətin, o cümlədən Azərbaycan dövlətinin başlıca məqsədi və fəaliyyət istiqamətləri xalqın milli maraqlarını qorumaqdan, vətəndaşlarının hüquq və azadlıqlarını təmin etməkdən ibarətdir.

Azərbaycan Respublikası Konstitusiyasının əsas məqsədi insan hüquq və azadlıqlarının, vətəndaşlara layiqli həyat səviyyəsinin təmin edilməsidir. Konstitusiya fərd, cəmiyyət və dövlət arasındakı münasibətləri tənzimləyir. Konstitusiyada aşağıdakı ideyaların təcəssümü öz əksini tapmışdır – beynəlxalq təcrübə nəzərə alınmaqla əsas insan və vətəndaş hüquqlarının və azadlıqlarının təsbit edilməsi, Konstitusiya ilə

normalaşdırılmış əsas insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi, təmin edilməsi və müdafiəsi üçün zəruri olan müvafiq icra mexanizminin və strukturlarının yaradılması.

İnsan hüquqlarının üstünlüyünə verilən hüquqi qiyməti konstitusiyanın strukturunu ifadə edən daxili ünsürlərinin (bölmələrinin, fəsillərinin) yerləşmə ardıcıllığında da müşahidə etmək olar. Konstitusiyanın əsaslarını müəyyən edən bölmədən sonra birinci və böyük bölmə insan hüquqlarına və vəzifələrinə aiddir. Konstitusiyanın əsas vəzifəsi fərdlə dövlət arasında münasibətləri ədalətli şəkildə nizamlamaqdır. Amerika alimi S. Smit hesab edir ki, konstitusiya xaosda olan münasibətləri nizamlayır və onlara məna verir. Bu fikri başqa cür də ifadə etmək olar: konstitusiya mürəkkəb ictimai münasibətlərdə hər bir subyektə ali hüquqi status verir.

Hər bir demokratik ölkə öz inkişafının müəyyən tarixi mərhələsində keçdiyi yolu qiymətləndirməli və bu inkişafın davam etməsini təmin etmək üçün müvafiq tədbirlər görməli, vasitələr və üsullar müəyyən etməlidir. Konstitusiya hüququ sahəsində tanınmış alimlər hesab edirlər ki, inkişaf edən cəmiyyətdə bütün zamanlar və xalqlar üçün daimi və dəyişməz konstitusiya ola bilməz. Bu, doğrudan da belədir. Azərbaycan Respublikası dünya dövlətləri sistemində yer tutaraq inkişaf etməkdədir. Dünyada baş verən mədəni, sosial və iqtisadi inkişaf, habelə siyasi institutların demokratik təbiəti bizim ölkəmizdən yan keçə bilməz. Dünya iqtisadiyyatına inteqrasiya təkcə iqtisadiyyatın deyil, həmçinin mədəni əlaqələrin güclənməsinə, mədəniyyətlərin qovuşmasına da müsbət təsirini göstərir. Hamılıqla qəbul olunmuş iqtisadi, siyasi və sosial dəyərlərin cəmiyyətin həyatında yer alması və onların təmin edilməsi artıq bir öhdəlik olaraq dövlətlər tərəfindən qəbul olunmaqdadır. Bütün bunlar ölkəmizin daxilində sosial, iqtisadi və siyasi münasibətlərin tərəqqiyə doğru inkişafına təsir etməyə bilməz. Məhz belə təsirlər nəticəsində inkişafa məruz qalmış mövcud ictimai münasibətlərin konstitusiya normaları ilə təsbit olunması zərurəti meydana çıxır. Bu səbəbdən də konstitusiyaya əlavələr və dəyişikliklərin edilməsi artıq hüquqi tələbata çevrilir. Bu baxımdan Azərbaycan Respublikasının ilk milli Konstitusiyası qəbul olunduqdan bir müddət sonra ona dəyişiklik və əlavələrin edilməsi zərurəti meydana çıxmışdır. Bununla bağlı 2002-ci il avqustun 24-də ümumxalq səsverməsi (referendum) keçirilmişdir.

Konstitusiyaya edilən əlavə və dəyişikliklərin əksəriyyəti insan hüquq və azadlıqlarının təminatı ilə bağlı idi. Onların ən əhəmiyyətlisindən biri pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədi ilə vətəndaşlara Konstitusiya Məhkəməsinə müraciət etmək hüququnun verilməsi idi. Konstitusiyaya edilən əlavələr və dəyişikliklər onunla eyni hüquqi qüvvəyə malik olan konstitusiya qanunları ilə tamamlanır. Konstitusiyanın 156-cı maddəsinə uyğun olaraq konstitusiya qanunları konstitusiyanın ayrılmaz hissəsidir.

Demokratik hüquqi dövlət quruculuğu çərçivəsində ölkəmizdə səmərəli şəkildə və sürətlə həyata keçirilən siyasi, hüquqi, iqtisadi və digər islahatlar Azərbaycan Respublikasının Konstitusiyasına beynəlxalq hüquq normaları və prinsiplərinin tələbləri nəzərə alınmaqla yenidən əlavə və dəyişikliklərin edilməsi zərurətini yaratdı. Bunun nəticəsi olaraq 2009-cu il martın 18-də "Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında" Referendum Aktı qəbul edildi. Bu, ilk növbədə insan və vətəndaş hüquq və azadlıqlarının daha səmərəli qorunması, Azərbaycan Respublikası vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsi, demokratiyanın genişləndirilməsi və yerli özünüidarəetmənin inkişafı ilə bağlı idi. Bu əlavə və dəyişikliklər yeni nəsil sosial hüquqların müasir yönümdə bərqərar olunmasına da xidmət edir. Əlbəttə, bunun üçün dövlətin siyasi və iqtisadi cəhətdən güclü olması vacib şərtlərdəndir. Yeri gəlmişkən, Prezident İlham Əliyev də bu məsələyə həmişə xüsusi diqqət yetirmişdir. Onun Yeni il və Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibətilə Azərbaycan xalqına ünvanladığı təbrik məktubunda deyilir: "Biz iqtisadi uğurlarımızı az təminatlı əhalinin vəziyyətinin yaxşılaşdırılmasına istiqamətləndirməliyik". Bu baxımdan, Konstitusiyanın 15-ci maddəsinin II hissəsinə əlavə edilən "iqtisadiyyatımız sosial yönümlüdür " ifadəsi çox mühüm əhəmiyyətə malikdir. Buna uyğun olaraq Konstitusiyada dövlətin ali məqsədlərindən biri kimi "Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi" (Konstitusiyanın 12-ci maddəsinin I hissəsi) təsbit olundu.

Azərbaycan Respublikası Konstitusiyasının 15-ci maddəsinin II hissəsinə və 12-ci maddəsinin I hissəsinə edilən əlavələr birbaşa qeyd olunmasa da, Azərbaycan dövlətinin sosial dövlət xüsusiyyətini ifadə edir. İqtisadiyyatın sosial yönümlü inkişafı vətəndaşlarının layiqli həyat səviyyəsini təmin etmək məqsədini güdən dövlətin sosial siyasətinin əsasını təşkil edir və onun üzərinə öhdəliklər qoyur.

İlk dəfə olaraq "sosial dövlət" ideyası XIX əsrdə məşhur alman dövlətşünası və iqtisadçısı Lorens fon Şteyn tərəfindən irəli sürülmüşdür. O, belə hesab edirdi ki, dövlətçilik ideyasının başlıca mahiyyəti bərabərliyin və azadlığın bərpa olunmasından, aşağı və kasıb təbəqənin varlılar səviyyəsinədək dirçəlməsindən ibarət olmalıdır. O, yazırdı ki, dövlət cəmiyyətin bütün üzvləri üçün iqtisadi və ictimai tərəqqiyə nail olmalıdır. Belə ki, bir nəfərin inkişafı digərinin inkişafını şərtləndirir, yalnız bu mənada ictimai və ya sosial dövlət anlamından söhbət gedə bilər. Hazırda "sosial dövlət" ifadəsi 3 əsas səviyyədə tədqiq edilir: elmi səviyyədə – ideya və bu

ideyanın inkişaf konsepsiyası kimi; normativ səviyyədə – dövlətlərin əsas qanunlarında təsbit olunmuş konstitusion prinsip kimi; empirik səviyyədə – cəmiyyətin sosial problemlərinin həlli istiqamətində dövlət təsisatlarının praktiki fəaliyyəti kimi.

İkinci Dünya müharibəsindən sonra "sosial dövlət" ideyasının inkişafında yeni mərhələ başlanmışdır. İnsan hüquq və azadlıqları ilə birbaşa məntiqi bağlılığı olan "sosial dövlət" prinsipi böyük itkilərə məruz qalmış bir sıra Avropa dövlətlərinin konstitusiyalarında təsbit olunmuşdur. Məsələn, AFR Konstitusiyasının 20-ci maddəsində, Fransa Konstitusiyasının 1-ci maddəsində və İtaliya Konstitusiyasının 2-ci maddəsində "sosial dövlət " ifadəsi öz əksini tapmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinə uşaq hüquqlarının qorunması ilə əlaqədar yeni normaların əlavə edilməsi, valideyn qayğısından məhrum olan uşaqların dövlət himayəsi altına götürülməsi dövlətimizin humanist mahiyyətini və sosial xarakterini bir daha təsdiq etmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının maddi normaları yüksək ümumbəşəri dəyərləri özündə cəmləşdirir. Onların məhdudlaşdırılması hətta konstitusiya proseduru baxımından çox mürəkkəbdir. Məsələn, Konstitusiyanın 155-ci maddəsində göstərilir: bu konstitusiyanın 1-ci, 2-ci, 6-cı, 7-ci, 8-ci və 21-ci maddələrində dəyişikliklər və ya onların ləğv edilməsi haqqında, III fəslində nəzərdə tutulmuş insan və vətəndaş hüquqları və azadlıqlarının ləğvi və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğundan daha artıq dərəcədə məhdudlaşdırılması haqqında təkliflər referenduma çıxarıla bilməz.

Qəbul edilmiş Referendum Aktında Konstitusiyanın 71-ci maddəsinə demokratik ölkələrdə əsas prinsiplərdən olan belə bir müddəa da əlavə olundu: hər kəs qanunla qadağan olunmayan hərəkətləri edə bilər və heç kəs qanunla nəzərdə tutulmayan hərəkətləri etməyə məcbur edilə bilməz.

Beləliklə, konstitusiyanın inkişaf dinamikası cəmiyyətdə mövcud olan ictimai-siyasi münasibətlərə adekvat baş verir. Bu baxımdan, konstitusiya cəmiyyətin və dövlətin inkişafına xidmət edən və cəmiyyətdə "hüquqi balansı" qoruyub saxlayan əsas normativ hüquqi sənəddir.

"**Azərbaycan**".-2010.-6 may.-N 97.-S.2.

# HƏRBİ SƏNAYE KOMPLEKSİNİN BANİSİ

**Yavər CAMALOV,**
müdafiə sənayesi naziri

**Möhkəm təməl üzərində bərqərar olan müdafiə sənayemiz Silahlı Qüvvələrimizi hərbi sursatla tam təmin etməyə qadirdir**

**XX əsrdə Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi böyük şəxsiyyət, dünya şöhrətli siyasətçi Heydər Əliyevin bənzərsiz ömür yolu, zəngin ictimai-siyasi fəaliyyəti Azərbaycanın müasir inkişaf tarixinin ən parlaq səhifəsidir. Tarixin ən çətin, məsuliyyətli anlarında həmişə xalqının yanında olmuş bu dahi insan özünün dediyi kimi, ömrünün qalan hissəsini xalqına, doğma Azərbaycanının müstəqilliyinə həsr etmişdir.**

Ölkəmizin müstəqilliyinin qorunub saxlanılmasında əsas əhəmiyyət kəsb edən Azərbaycanın hərbi sənaye kompleksinin təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. 1969-cu ildə dahi şəxsiyyət, böyük insan, xalqımızın xilaskarı Heydər Əliyev Azərbaycan Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra respublikamızda iri sənaye müəssisələrinin yaradılmasına nail olmuşdur. Ulu öndərin o illərdə gördüyü işlər, yaradılan böyük sənaye müəssisələri Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əsasıdır desək, yanılmarıq. Çünki hələ o illərdə bu işlər görülərkən Heydər Əliyev Azərbaycanın gələcəyini, bugünkü müstəqilliyini düşünmüşdür.

Həmin dövrdə məhz onun şəxsi təşəbbüsü və səyi sayəsində SSRİ Elektronika Nazirliyinin tərkibində olan Bakı "Mikrosxematexnika" Xüsusi Konstruktor Bürosunun bazasında "Azon" zavodu, 1975-ci ildə isə Bakıda Elektron Hesablama Maşınları zavodu qısa müddət ərzində tikilib istismara verilmişdir. Bütövlükdə 1970-1982-ci illərdə respublika ərazisində (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan və s. şəhərlərdə) müdafiə təyinatlı elmi və istehsal müəssisələri də daxil olmaqla çoxlu sayda zavod, fabrik, istehsalat sexləri istifadəyə verilmişdir. Təsadüfi deyil ki, həmin dövr Azərbaycanda istehsal olunan sənaye məhsulları dünyanın 65 ölkəsinə ixrac olunurdu.

Azərbaycanda olan demoqrafik artımı və mövcud elmi potensialı nəzərə alan Heydər Əliyev SSRİ-nin ağır maşınqayırma və hərbi sənaye kompleksi müəssisələrinin respublikada yaradılması məsələsini Sov. İKP MK-nın Siyasi Bürosu qarşısında qaldırmışdır. Onun təklifləri və gərgin əməyi sayəsində Azərbaycanda radiotexnika və cihazqayırma sənayesi üzrə üç yeni müəssisənin – Radio Maşınqayırma zavodunun ("Robot" zavodu), Tərtərdə Lionozov Elektromexanika zavodunun filialının və Elektron Hesablama Maşınları zavodunun ikinci növbəsinin tikintisi, elektron sənayesi üzrə dörd zavodun – Gəncədə "Billur" zavodunun, Xaçmazda, Siyəzəndə və Lənkəranda "Kondesator" zavodlarının tikilməsi, müdafiə sənayesi üzrə Azov Optika-Mexanika ("Alov") zavodunun filialının yaradılması, Alunit zavodunun tikintisi; gəmiqayırma sənayesi üzrə Bakı Elektro-Mexaniki İnstitutunda yeni istehsal sahələri yaradılması, sonradan onun bazasında "Nord" EİB-nin yaradılmış, aviasiya sənayesi üzrə istehsal sahələrinin genişləndirilməsi və s. məhz bu təşəbbüsün nəticəsidir.

Neftlə zəngin olan respublikamızda neft maşınqayırması üzrə müəssisələrin yaradılmasının zəruri olduğunu qabaqcadan görən Heydər Əliyev müharibə şəraitinə uyğun istehsal profilini dəyişmək imkanı nəzərdə tutulmaqla yeni maşınqayırma müəssisələrinin tikilməsi və genişləndirilməsi barədə də öz təkliflərini vermişdir. Həmin dövrdə öz nüfuzundan istifadə edən Heydər Əliyev Azərbaycanda hərbi sənaye kompleksinin və ağır maşınqayırma sənayesinin inkişafına təkan verəcək "Ulduz" EİB, Əli Bayramlı "Araz" zavodu (indiki Şirvan "Araz"), "Rabitə" Elmi-Tədqiqat İnstitutu kimi yeni müəssisə və zavodların tikilib istismara verilməsinə nail olmuşdur.

Elmin inkişafına daim xüsusi diqqət ayıran Heydər Əliyev Azərbaycanın zəngin təbiəti, geniş tərkibli bitki örtüyü, relyefi Xəzər dənizi ilə birlikdə bütün ərazisi kosmik aparatlar vasitəsilə kosmosdan alınan məlumatların aşkarlanması və təhlili metodikalarının yaradılması sahəsində ilboyu fəaliyyət göstərmək imkanı olan nadir təbii sınaq poliqonu olduğunu nəzərə alaraq 1975-ci ildə Azərbaycan Elmlər Akademiyasının tərkibində "KASPİ" Elmi Mərkəzinin yaradılması haqqında qərar vermişdir. 1978-ci ildə isə "KASPİ" Elmi Mərkəzinin bazasında Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu yaradılmışdır. 1982-ci ildə isə Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu təcrübi istehsalat sahəsinin və poliqonunun əsasında Kosmik Tədqiqatlar Elmi-İstehsalat Birliyi (EİB) təşkil edilmişdir. Qeyd etmək lazımdır ki, institut və EİB keçmiş SSRİ dövründə kosmik tədqiqatlar sahəsində fəaliyyəti açıqlanan ilk müəssisələr olub.

1991-ci ildə müstəqillik əldə etdikdən sonra respublikamızda sosial-iqtisadi sahədə tənəzzül dövrü başladı. Azərbaycan ərazisinin 20 faizinin işğal olunması, 1 milyondan artıq soydaşımızın dədə-baba yurdlarından didərgin düşməsi, daxildəki qeyri-sabitlik, cəbhə xəttində vəziyyətin getdikcə gərginləşməsi

müstəqilliyimizi itirmək təhlükəsi ilə qarşı-qarşıya qoymuşdu. Belə bir zamanda Azərbaycan xalqı çıxış yolunu yalnız siyasi uzaqgörənliyə sahib olan Heydər Əliyevin hakimiyyətə gəlməsində gördü. Bununla da müstəqil Azərbaycanın müasir siyasi tarixində yeni bir səhifə açıldı.

Ulu öndər Heydər Əliyev qısa müddət ərzində ölkədə daxili sabitliyin yaradılmasına nail oldu. Respublikanın müharibə vəziyyətində olması nəzərə alınaraq ordu quruculuğu istiqamətində məqsədyönlü tədbirlər həyata keçirildi. Ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əvvəlki illərlə müqayisədə xeyli yaxşılaşdırıldı. Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğının nəticəsində ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əvvəlki illərdən fərqli olaraq xeyli yaxşılaşdırıldı. Silahlı Qüvvələrə tələb olunan silah, hərbi texnika, döyüş sursatı, arxa xidmət əmlakı və digər maddi vasitələrin istehsal olunması üçün sifarişlərin respublikanın müdafiə sənayesi müəssisələrinə verilməsi ölkə iqtisadiyyatının inkişafına da şərait yaratdı.

2003-cü ildə ordumuzun hərbi-texniki bazasını gücləndirmək və bu sahədə kənardan asılılığı azaltmaq məqsədilə ümummilli lider tərəfindən "Azərbaycan Respublikası müdafiə sənayesi müəssisələrinin 2003-2005-ci illərdə inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi ilə respublikanın müdafiə sənayesinin inkişafının yeni mərhələsi başlandı.

Bu istiqamətdə aparılan məqsədyönlü işlər Heydər Əliyev ideyalarının layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən bu gün də uğurla həyata keçirilir. Respublikamızın müharibə vəziyyətində yaşamasını nəzərə alan və bu sahənin inkişaf etdirilməsini zamanın tələbi kimi dəyərləndirən ölkə başçısının Müdafiə Sənayesi Nazirliyinin yaradılmasına dair imzaladığı 16 dekabr 2005-ci il tarixli sərəncam bunun bariz nümunəsidir.

Müdafiə Sənayesi Nazirliyi Prezident, Ali Baş Komandan İlham Əliyevin xüsusi tapşırıq və tövsiyələri əsasında uğurlu fəaliyyət göstərir. Ötən müddət ərzində nazirliyin bir neçə müəssisəsi əsaslı tikinti və yenidənqurmadan sonra istifadəyə verilmişdir. "İqlim" Elmi İstehsalat Müəssisəsinin, "Telemexanika", "Peyk", "Alov", Elektron Hesablayıcı Maşınlar və "Radioquraşdırma" zavodlarının, eləcə də Elmi-Tədqiqat İnstitutunun açılışı olmuşdur. Təkcə bu ilin birinci rübündə nazirliyin "Dalğa" Elmi İstehsalat Müəssisəsinin, Şirvan "Araz" zavodunun əsaslı tikinti və yenidənqurmadan sonra açılışı olmuş, "İqlim" Elmi İstehsalat Müəssisəsi və "Telemexanika" zavodunda yeni istehsal sexləri yaradılaraq istifadəyə verilmişdir. İstifadəyə verilən müəssisələrdə silahlı qüvvələri müasir tələblərə cavab verən müdafiə təyinatlı məmulatlarla və xalq təsərrüfatını maşınqayırma, cihazqayırma, elektrotexnika, rabitə sahələrində istifadə olunan avadanlıq və ehtiyat hissələri ilə təmin etmək üçün onlarca yeni istehsalat sahələri yaradılmış və bu sahələr beynəlxalq standartlara cavab verən avadanlıq və texnologiyalarla təmin edilmişdir.

Hərbi-texniki əməkdaşlıq sahəsində də bir sıra mühüm işlər həyata keçirilmişdir. Belə ki, Müdafiə Sənayesi Nazirliyi yarandığı zaman respublikamız sahə üzrə yalnız Türkiyə Respublikası ilə əməkdaşlıq edirdisə, bu gün aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın inkişaf etmiş 20-dən çox dövlətinin 50-dən çox firma və şirkəti ilə sıx əməkdaşlıq edir. Birmənalı şəkildə qeyd etmək lazımdır ki, əməkdaşlıq sahəsində əldə olunmuş bu uğurlar Prezident İlham Əliyevin apardığı xarici siyasətin nəticəsidir.

Artıq nazirliyin müəssisələrində istehsal olunan müdafiə təyinatlı məmulatlar beynəlxalq sərgilərdə nümayiş olunur. Ötən ilin aprel ayında Azərbaycanın ilk dəfə olaraq beynəlxalq əhəmiyyətli sərgidə (IDEF-2009) iştirak etməsi ölkəmizin müdafiə sənayesinin inkişafından xəbər verir. Müdafiə Sənayesi Nazirliyinin tabeliyindəki müəssisələrdə yaradılan və istehsal olunan 27 adda müdafiə təyinatlı məmulatla ("İstiqlal" tipli snayper tüfəngi, atıcı silahlar üçün müxtəlif növ döyüş sursatları, artilleriya minaları və optik cihazlar və. s) respublikamızın beynəlxalq sərgidə təmsil olunması qısa müddət ərzində görülmüş işlərin nəticəsidir.

Hazırda nazirliyin kollektivi 2010-cu il mayın 10-13-də İordaniya Haşimilər Krallığının Əmman şəhərində keçiriləcək SOFEX-2010 beynəlxalq sərgidə Azərbaycanı layiqincə təmsil etməyə hazırlaşır. Ulu öndərin doğum günü ərəfəsinə təsadüf edən bu sərgidə Azərbaycan 50-dən artıq müdafiə təyinatlı məmulatla təmsil olunacaq. Azərbaycanı qüdrətli dövlət kimi görmək istəyən ümummilli lider Heydər Əliyev tərəfindən ötən əsrdə əsası qoyulan bir qurumun bu gün dünyanın 70-dən çox ölkəsinin dövlət qurumları və qabaqcıl şirkətləri tərəfindən istehsal olunan məmulatların sərgiləndiyi məkanda öz milli məhsullarını nümayiş etdirməsi bizi çox sevindirir.

Nazirliyin müəssisələrində istehsal olunan müdafiə təyinatlı məmulatların həcmi ildən-ilə artır. 2009-cu ildə bu göstərici əvvəlki illə müqayisədə 4 dəfə artmışdır. Cari ildə bu məmulatların çeşid sayının 398-ə çatdırılması nəzərdə tutulur. İstehsalı mənimsənilən məhsullar arasında uzaqməsafəli minaatanlar, snayper tüfəngi, əl qumbaraatanı, müxtəlif növ tank əleyhinə minalar, optik nişangahlar, aviasiya təlim bombaları, maskalanma toru, müxtəlif döyüş sursatları və bir sıra digər məmulatlar var.

Hazırda Müdafiə Sənayesi Nazirliyi Cənubi Afrikanın "Paramaund Group" şirkəti ilə "Matador" və "Marauder" tipli zirehli transportyorların birgə istehsalını aparır. Eyni zamanda, nazirliyin müəssisələrində

NATO standartlarına uyğun "Zəfər", "Zəfər-K" və "İnam" tipli müasir tapançalar yaradılmış və istehsalına başlanmışdır. Silahlı Qüvvələrdə istifadə edilən keçmiş SSRİ istehsalı olan müxtəlif tipli zirehli döyüş maşınlarının müasir tələblərə uyğun təkmilləşdirilməsi işləri həyata keçirilir.

Dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi, nazirliyin müəssisələrində də müdafiə təyinatlı məmulatların istehsalı ilə yanaşı, mövcud istehsal bazasından istifadə etməklə mülki məhsulların yeni növlərinin mənimsənilməsi istiqamətində də məqsədyönlü işlər aparılır. İstehsal edilən məhsulların çeşid sayı ildən-ilə artırılır. Onların sırasına polad panelli radioatorların müasir modeli, müxtəlif təlim-tədris stendləri, piyadalar üçün yol keçidi, müxtəlif kalibrli ov patronları, pnevmatik tir tüfəngləri, əsgər səhra çadırları, işıqforlar, xəstəxana və hərbi hospitallarda istifadə olunan ortopedik tibb çarpayıları, çoxsaylı çap lövhələri, dəmir torlar, tikanlı məftillər və digər yeni məhsullar daxildir.

Dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" Yerin kosmosdan tədqiqi sahəsində perspektiv istiqamətləri müəyyənləşdirməyə, ölkədə bilavasitə kosmik texnika və texnologiyaların yaradılması və aerokosmik məlumatlardan istifadə etməklə müxtəlif tətbiqi məsələlərin həlli ilə məşğul olan nazirliyin Milli Aerokosmik Agentliyinin (MAKA) texniki tərəqqisi üçün geniş imkanlar yaratmışdır.

Bütün görülmüş işlər bir daha təsdiqləyir ki, ulu öndər Heydər Əliyevin siyasi irsinə, dövlətçilik ənənələrinə və Azərbaycan xalqının iradəsinə söykənən Prezident İlham Əliyev ötən illər ərzində dövlətimizi daha da inkişaf etdirərək ümummilli liderin dövlətçiliklə bağlı arzu və istəklərinin həyata keçirilməsini təmin etməyə nail olmuşdur.

"**Azərbaycan**".-2010.- 6 may.-N 97.-S.4.

# SOSİAL SİYASƏTİN HEYDƏR ƏLİYEV MODELİ

**Hadi RƏCƏBLİ,**
Milli Məclisin Sosial siyasət komitəsinin sədri,
siyasi elmlər doktoru

**Tarixin istənilən mərhələsini, ictimai-siyasi hadisələri tədqiq edərkən ictimai prosesin iştirakçısı və yaradıcısı olan siyasi liderlərdən, dövrün böyük şəxsiyyətlərindən yan keçmək mümkün olmur. Lakin tarixin özünün də sərt tələbləri, şərtləri mövcuddur. Axı zaman keçdikcə hər bir liderə, şəxsiyyətə illərin yaddaşında yaşamaq nəsib olmur. Bu mənada tarixi şəxsiyyətə, siyasi xadimə, onun xidmətlərinə yaşadığı və fəaliyyət göstərdiyi zamandan uzaqlaşdıqca daha dərindən və tam aydınlığı ilə qiymət vermək mümkün olur.**

Ötən əsrin 90-cı illərinin əvvəllərində baş verən mürəkkəb ictimai-siyasi hadisələr, erməni təcavüzü, daxili sabitliyin pozulması, hakimiyyətdaxili intriqalar yenicə qurulmuş, kövrək addımlarını atan ölkəmizin müstəqilliyini ciddi təhlükə qarşısında qoymuşdu. Ölkə dağılmaq, parçalanmaq ərəfəsində idi. Belə bir tarixi anda xalqımız dahi, uzaqgörən siyasi lider, görkəmli dövlət xadimi Heydər Əliyevin ətrafında birləşərək müstəqil dövlətin yaşamasına nail oldu. Ölkəmiz məhz dahi liderin rəhbərliyi altında mürəkkəb ictimai-siyasi proseslərdən üzüağ çıxdı, regionun strateji əhəmiyyətə malik dövlətinə çevrildi. Bu gün inamla və əminliklə demək mümkündür ki, müstəqil Azərbaycan Heydər Əliyevin ən böyük əsəridir.

Heydər Əliyevin çoxşaxəli ictimai-siyasi, sosial-iqtisadi, mədəni və digər sahələrdəki yorulmaz fəaliyyəti, Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətləri haqqında yüzlərlə məqalələr, monoqrafiyalar, kitablar yazılmışdır. Bu məqalədə isə biz ulu öndər Heydər Əliyev tərəfindən irəli sürülən sosial siyasətin Azərbaycan modelinin mahiyyətini, onun elmi-nəzəri əsaslarını, sosial transformasiyanın bəzi məqamlarını və Prezident İlham Əliyevin modern dövlət quruculuğu prosesində sosial siyasətin prioritetlərini təhlil etməyə çalışacağıq.

## Dayanıqlı və mükəmməl elmi-nəzəri əsaslara söykənən sosial siyasət

Heydər Əliyev hakimiyyətə gələnədək ölkədə populist, heç bir iqtisadi qanunlara cavab verməyən sosial siyasət mövcud idi. Bu siyasət ünvansız, ehtiyacları dəqiqliklə qiymətləndirmədən pensiyaların, güzəşt və imtiyazların verilməsini nəzərdə tuturdu.

Heydər Əliyevin həyata keçirdiyi sosial siyasətin iki əsas xarakterik cəhətini xüsusilə qeyd etmək yerinə düşərdi. Bunlardan biri sosial siyasətin dayanıqlı olması, ölkənin iqtisadi bazisinə əsaslanması, ikincisi isə onun mükəmməl və dünya təcrübəsində uğurla sınaqdan çıxmış normativ hüquqi bazaya söykənməsidir. Heydər Əliyevin sosial siyasətinin inkişaf tarixinə nəzər yetirsək görərik ki, ölkə iqtisadiyyatının tənəzzüldən çıxmasından, daxili sabitliyin təmin edilməsindən sonra sosial sahədə əhəmiyyətli addımlar atılmışdır. Ayrı-ayrı kateqoriyalı şəxslərin sosial müdafiəsi üzrə müxtəlif qanunlar – “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında”, “Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında”, “Veteranlar haqqında” və digər qanunlar qəbul edildi, şəhid ailələrinin, qaçqınların, məcburi köçkünlərin, müharibə və 20 Yanvar əlillərinin, veteranların sosial təminatının yaxşılaşdırılması istiqamətində çoxsaylı fərman və sərəncamlar imzalandı.

Heydər Əliyevin həyata keçirdiyi sosial siyasətin Azərbaycan modeli elmi-nəzəri əsaslara söykənirdi. Sosial siyasətin və sosial siyasət modellərinin elmi-nəzəri aspektlərinə toxunmadan bu siyasətin tam dərki, onun mahiyyətinin açıqlanması mümkün deyildir.

## Heydər Əliyev tranzitoloji proseslərin idarə edilməsinə böyük diqqət yetirirdi

Heydər Əliyev güclü dövlət ideyasına sadiq qalaraq ilk növbədə sosial problemlərin həlli sahəsində dövlətin rolunun artırılmasına xüsusi əhəmiyyət verirdi. Bir yandan inflyasiya, iqtisadiyyatın güclü böhran yaşaması, əvvəlki iqtisadi əlaqələrin dağılması və yenilərinin yaranmaması, bir yandan isə ölkəmizin zorla cəlb olunduğu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi fonunda əhali yoxsulluq həddinə düşmüş, özlərinin minimal sosial tələbatlarını ödəmək imkanlarından məhrum olmuşdu. Təbii ki, cəmiyyət həyatının bütün sahələrində olduğu kimi yenə də bütün yük sosial siyasətin başlıca subyektinin – dövlətin üzərinə düşürdü.

Yeni, kövrək addımlarını atan Azərbaycan özünün hədəflərini düzgün müəyyən etmişdi. Bu, demokratik, hüquqi, iqtisadi aspektdə bazar münasibətlərinə rəvac verən, sahibkarlığı və çoxmülkiyyətçiliyi

dəstəkləyən, sosial aspektdə isə hər kəsin layiqli həyat səviyyəsini təmin etməyi öhdəsinə götürən bir dövlət ideyası idi. Şübhəsiz ki, totalitar rejimdən çıxmış, uzun illər dövlətçilik ənənəsindən məhrum olmuş, iqtisadiyyatı dərin böhran keçirmiş bir ölkə üçün transformasiya prosesi ilə də asan və rahat olmayacaqdı. Əslində Azərbaycanda dövlətin transformasiyası totalitar rejimdən demokratik cəmiyyətə keçidi təmin etməyə istiqamətlənmişdi. Buna isə radikal addımlarla nail olmaq mümkün deyildi. Bu mənada Heydər Əliyev məhz islahatlar yolunu seçmişdi.

Sosial siyasətin transformasiyası o zaman uğurlu hesab oluna bilər ki, yuxarıda qeyd edildiyi kimi o elmi-nəzəri, iqtisadi əsaslara söykənsin, eyni zamanda sosial prioritetlər düzgün müəyyənləşdirilsin. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev "XXI əsrdə milli dövlətçilik" adlı monoqrafiyasında Azərbaycanda modernləşdirilmənin elmi-nəzəri aspektlərini təhlil edərkən bu qənaətə gəlmişdir ki, ölkəmizdə modernləşdirmə prosesi sosialist dövlətinin müasir hüquqi, demokratik dövlətə transformasiyası olub, müəyyən mərhələlərdən keçmişdir.

Təhlillər göstərir ki, Heydər Əliyevin sosial siyasətinin başlıca istiqamətləri – sosial prioritetləri əsasən aşağıdakılardan ibarətdir və eyni zamanda ölkəmizdə onların səmərəli həlli yolları tapılmışdır.

Pensiya islahatları

Bütün sivil cəmiyyətlərdə pensiya təminatı sosial müdafiə sisteminin mühüm sahəsi kimi qəbul olunmuşdur. Bu isə pensiya təminatının mükəmməl və sivil qanunvericilik əsasında həyata keçirilməsini tələb edir. Hər bir ölkənin pensiya siyasəti pensiya sisteminin iki əsas funksiyasının gerçəkləşdirilməsinə yönəldilmişdir. Birinci funksiya sosial funksiyadır, bu əmək qabiliyyətini itirmiş şəxslərin normal həyat şəraitini təmin etməyi nəzərdə tutur. İkinci funksiya iqtisadi funksiya olub pensiya ilə əmək fəaliyyəti arasında asılılığı təmin etməkdir. Sadə şəkildə desək, əmək fəaliyyəti gələcək pensiya təminatı üçün əsas olmalıdır.

13 iyun 1997-ci il tarixdə Milli Məclis tərəfindən qəbul olunmuş "Vətəndaşların pensiya təminatı haqqında" Azərbaycan Respublikası Qanununa dəyişiklik və əlavələr edilməsi barədə" qanun pensiya sistemində həmin dövr üçün zəruri hesab edilən bir sıra islahatlara yol açdı. Belə ki, pensiya yaşı mərhələlərlə kişilər üçün 60 yaşdan 62-yə, qadınlar üçün 55 yaşdan 57 yaşa çatdırıldı. Eyni zamanda pensiyaların hesablanması sistemində müəyyən dəyişikliklər edildi. Nəticədə 650 min vətəndaşın pensiyası orta hesabla 2,1 dəfə artırılaraq 1993-cü ildən sonra pensiyaya çıxmış vətəndaşların pensiyalarına bərabərləşdirildi.

Əhalinin sosial müdafiəsini gücləndirmək, vətəndaşların pensiya təminatını yaxşılaşdırmaq, pensiya təminatı sisteminin idarə olunmasını, pensiyaların müəyyən olunması və əhaliyə verilməsi mexanizmini təkmilləşdirmək məqsədi ilə ümummilli lider 17 iyul 2001-ci il tarixli sərəncamla "Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyası"nı təsdiq etdi. Pensiya İslahatı Konsepsiyası vətəndaşların pensiya ödənişlərinin etibarlı maliyyə təminatına nail olunması, pensiya təminatı sistemini bazar iqtisadiyyatı prinsiplərinə uyğunlaşdırmaqla əhalinin rifahının yaxşılaşdırılmasında onun rolunun artırılması, pensiya təminatı sisteminin idarə olunmasının təkmilləşdirilməsi, sosial sığorta haqları ilə ödənişlər arasındakı əlaqənin uyğunlaşdırılması kimi mühüm problemlərin həllini nəzərdə tuturdu.

Burada xüsusi qeyd etmək yerinə düşər ki, ümummilli liderin son fərmanlarından biri də pensiya sistemində islahatların aparılmasına aid olmuşdu. "Azərbaycan Respublikasında dövlət pensiya sisteminin təkmilləşdirilməsi tədbirləri haqqında" 4 avqust 2003-cü il tarixli 908 saylı fərmanla Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yerli orqanlarının pensiyaların və pensiyalara əlavə olunan müavinətlərin təyin olunması, maliyyələşdirilməsi və ödənişinə nəzarət üzrə funksiyaları onların həyata keçirilməsini təmin edən müvafiq maddi-texniki baza və ştat vahidləri ilə birlikdə Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fonduna verildi.

Monetizasiya – güzəşt və imtiyazların müavinətlərlə əvəz edilməsi

2002-ci il yanvarın 1-dən ölkəmizin sosial siyasətində yeni dövr başladı. Belə ki, "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" 15 noyabr 2001-ci il tarxli 214-IIQD nömrəli qanunu ilə iki konseptual məsələ öz həllini tapdı. 1) güzəşt və imtiyazlardan istifadə edən əhali kateqoriyasının dairəsinə yenidən baxıldı; 2) kommunal və nəqliyyatdan istifadəyə görə güzəştlər müavinətlərlə əvəz olundu. Bütövlükdə kommunal və nəqliyyat sahəsində mövcud olan güzəştlərin monetarizasiyası həyata keçirildi. Qeyd etmək lazımdır ki, güzəştlərin müavinətlərlə əvəz olunması bazar iqtisadiyyatı şəraitində dövlət vəsaitlərinin xərclənməsinin səmərəliliyinin yüksəldilməsinə, enerjidaşıyıcılarından səmərəli və qənaətlə istifadənin təmin olunmasına, sosial müdafiənin ünvanlılığının artırılmasına şərait yaratdı. Məsələn, ictimai nəqliyyatda özəl sektorun xüsusi çəkisinin getdikcə artdığı bir şəraitdə güzəştli şəxslərin həmin xidməti göstərən təşkilatlar hesabına nəqliyyatdan pulsuz istifadə etməsi bütövlükdə bazar münasibətlərinin mahiyyətinə zidd idi. Çünki dövlətlə nəqliyyat xidməti göstərən təşkilatlar arasında münasibətlər vergi, lisenziya və sairə ilə tənzimləndiyindən həmin xidmət təşkilatlarının üzərinə əlavə

bir yük qoyulması bazar iqtisadiyyatının prinsiplərinə uyğun deyildi. Çünki bu güzəştləri dövlət müəyyən edirsə xərcini də dövlət çəkməlidir.

Güzəştlərin müavinətlərlə əvəz olunması ünvanlılığın gücləndirilməsinə səbəb oldu. Eyni kateqoriyaya aid olan şəxslər müxtəlif yaşayış məntəqələrində yaşayırlarsa təbii ki, həmin güzəştlərdən bəhrələnmək imkanları da fərqli olurdu. Bakıda ictimai nəqliyyatın sıx şəbəkəsi, kommunal xidmətin bütün növləri mövcuddur. Lakin digər kənd yaşayış məskənlərində bu xidmətlərdən istifadə imkanları elə də geniş və əhatəli deyil. Belə olan halda şəhərdə yaşayan imtiyazlı təbəqə bu imtiyazlardan daha çox, kəndlərdə yaşayanlar isə çox məhdud səviyyədə istifadə edirdi. Güzəştlərin müavinətlərlə əvəz olunması isə imkan verdi ki, bu imtiyazlardan məhdud səviyyədə istifadə edənlər və yaxud o dövrdə məlum səbəblərdən istifadə edə bilməyənlər də onlar üçün nəzərdə tutulmuş güzəştlərin pul əvəzini alsınlar.

Yoxsulluğun azaldılması

"Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" 2003-cü il fevral ayının 20-də 854 nömrəli fərmanla təsdiq edilmişdir. Dövlət Proqramının icrasına başlandığı dövrdə ölkə üzrə yoxsulluq səviyyəsi 49 faiz qiymətləndirilirdi. Yoxsulluğun azaldılmasının məqsədi ilə sosial siyasətin qarşısında dayanan vəzifə arasında eyniyyət olduğunu (hər ikisinin məqsədi insanların layiqli həyat səviyyəsinə nail olmaqdır) nəzərə alsaq görərik ki, bu istiqamətdə görülən irimiqyaslı işlər əhalinin sosial müdafiəsinin gücləndirilməsi yönümündə ciddi irəliləyişlərə səbəb olmuşdur.

**Modernləşmiş dövlət quruculuğunda sosial müdafiə əsas prioritetlərdəndir**

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqına müraciətində cənab İlham Əliyevi özünün siyasi varisi olduğunu bəyan edərək demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Müraciətdən ötən illər bir daha təsdiq etdi ki, böyük öndər nə qədər haqlı imiş. Qədirbilən xalqımız həm 2003-cü, həm də 2008-ci ildə öz seçimi ilə bir daha Heydər Əliyev kursunun yaşamasına, davam etməsinə səs verdi. Bu mənada cənab İlham Əliyevin siyasi kursuna Heydər Əliyev kursunun yaşaması və davamı kimi baxmaq lazımdır. Heydər Əliyev və İlham Əliyev dövlət quruculuğunun mahiyyətinə, onlar arasındakı səbəbli əlaqəyə diqqət yetirsək görərik ki, ümummilli lider tərəfindən uzaqgörənliklə, mükəmməl şəkildə müəyyən edilmiş strategiya cənab İlham Əliyev tərəfindən bir o qədər dəqiqliklə, xalqımızın və dövlətimizin mənafeyi nəzərə alınmaqla həyata keçirilmişdir. Bununla yanaşı cənab İlham Əliyevin dövlət quruculuğu modeli özünəməxsus ştrixlərlə də diqqəti cəlb edir. Ulu öndərin irimiqyaslı neft qaz layihələrinin gerçəkləşməsi və bu istiqamətdə ölkəmizə külli miqdarda maliyyə vəsaitlərinin daxil olması Heydər Əliyev tərəfindən başlanan islahatların, o cümlədən sosial islahatların daha da gücləndirilməsi, infrastrukturanın yeniləşdirilməsi üçün şərait yaratdı. Cənab İlham Əliyevin modern sosial siyasətinin qloballığı və əhəmiyyəti ondadır ki, onun mövcud istiqamətləri var. Bu istiqamətləri aşağıdakı kimi təsnifləşdirmək olar:

1. Müavinət sisteminin sığorta sistemindən ayrılması

Sığorta-pensiya sisteminin müavinət sistemindən ayrılması 17 iyul 2001-ci il tarixli sərəncamla təsdiq olunmuş Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyasında nəzərdə tutulmuşdu və bu səmərəli sosial müdafiə sisteminin qurulmasının əsas prinsiplərindən biridir. Bu istiqamətdə ulu öndər tərəfindən müəyyən işlər həyata keçirilmişdi. Sosial müavinət sisteminin sığorta-pensiya sistemindən ayrılması istiqamətində ən həlledici hadisə iki qanunun – "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası qanunlarının qəbulu oldu. 2006-cı il yanvarın 1-dən qüvvəyə minən bu qanunlar ölkədə sosial sferanın tamamilə yeni əsaslarla qurulmasını nəzərdə tutur.

Azərbaycan Respublikasında vətəndaşların əmək pensiyası hüquqlarının yaranmasının əsaslarını, bu hüquqların həyata keçirilməsi qaydalarını və əmək pensiyası təminatı sistemini müəyyən edən "Əmək pensiyaları haqqında" qanun olduqca geniş bir spektri, 1 milyon üç yüz min pensiyaçını və 1 milyon beş yüz min nəfərdən çox bu gün işləyərək Dövlət Sosial Müdafiə Fonduna məcburi dövlət sosial sığorta haqları ödəyən insanları əhatə edir. Bununla da sosialist prinsiplərinə, başqa sözlə desək həmrəylik prinsiplərinə əsaslanan pensiya sistemini inkişaf etmiş Avropa ölkələrində geniş tətbiq olunan – vətəndaşların fərdi hesablarında yığılan pensiya kapitalına əsaslanan pensiya sistemi əvəz etdi. Mövcud qanunvericiliyə uyğun olaraq sığorta olunanların fərdi uçotu həyata keçirilir və məcburi dövlət sosial sığorta haqlarının fərdi sığorta hesablarında toplanılır. Bununla da vətəndaşların pensiya təminatı fərdi uçotun məlumatları əsasında onların ödədikləri sığorta haqlarının məbləğinə uyğun olmaqla müəyyən edilir.

"Sosial müavinətlər haqqında" Qanun isə əvvəllər sistemsiz halda olan müavinətlərin dairəsini, təyin olunması şərtlərini vahid bir sənəddə tənzimləyir. Hansı ki, bu müavinətlərin bir qismi əvvəllər "Vətəndaşların

pensiya təminatı haqqında" qanunda sosial pensiya kimi (yaşa görə, əlilliyə görə və ailə başçısını itirməyə görə sosial pensiyalar) təsbit olunmuşdu, digər bir qismi isə ayrı-ayrı qanunvericilik aktları ilə müəyyənləşdirilmişdi. Sosial müavinətlərin dairəsi o qədər genişlənmişdi ki, bəzən bu sahələrin mütəxəssisləri onların sayı barədə dəqiq fikirlərə malik deyildilər. Təqribən bu müavinətlərin sayı 40-dan çox idi ki, bunların da bəziləri pensiyaya əlavələr şəklində ödənilirdi. Yəni pensiyaçı eyni zamanda sosial müavinətlər də alırdı.

Pensiyaçıların aldıqları pensiya və müavinətlər cəmlənərək onların pensiyasına aid edildi və bu vahid pensiya məbləği yeni qanunvericiliklə müəyyən olunmuş qaydada əmək pensiyasının baza və sığorta hissələrinə bölündü.

Sosial müavinətlər dövlət büdcəsi hesabına ödənilən dövlət yardımı kimi bir qayda olaraq əmək pensiyası hüququ, əmək qabiliyyəti olmayan şəxslərə ödənilir.

Artıq inamla demək olar ki, 2010-cu il yanvarın 1-i sosial müdafiə sistemində yeni mərhələnin başlanğıcı oldu. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının 27 oktyabr 2009-cu il tarixli qanunu pensiya sistemində yeni yanaşmanın əsasını qoymuşdur. Bu yanaşma ilk növbədə Azərbaycan Respublikasında vətəndaşların pensiya təminatının daha da yaxşılaşdırılmasını, sığorta-pensiya sisteminin dayanıqlı və dinamik inkişafına nail olunmasını təmin etmək məqsədi ilə qəbul edilmiş "2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2008-ci il tarixli sərəncamından irəli gəlir. Qeyd olunan qanuna əsasən ölkəmizin pensiya sistemində bir sıra ciddi dəyişikliklər həyata keçirildi. Buraya kişilər və qadınlar üçün pensiya yaşının mərhələlərlə artırılması, pensiya hüququ əldə etmək üçün tələb olunan sığorta stajının yüksəldilməsi, güzəştli şərtlərlə yaşa görə pensiya alan çoxuşaqlı qadınların dairəsinə yenidən baxılması, 2006-cı il yanvarın 1-dək olan dövr üçün pensiyanın hesablanmasının yeni qaydasının tətbiqi kimi məsələlər daxil idi. Qanunun müzakirələri zamanı aparılan geniş və hərtərəfli diskussiyalar bir daha təsdiq etdi ki, ölkəmizin pensiya sisteminin dayanıqlı olması, pensiya məbləğinin sığorta haqları əsasında tam formalaşması üçün bu islahatlar qaçılmazdır. Eyni zamanda yaşa görə pensiya almaq hüququ olan şəxslərin güzəştlərinin məhdudlaşdırılması bu sistemin dövlət sosial yardımı sistemindən ayrılmaqla yalnız sığorta prinsiplərinə söykənməsini şərtləndirmişdir. 2006-cı il yanvarın 1-dək mövcud olan dövr üçün sığorta olunanların pensiyasının hesablanmasının yeni qaydasının tətbiqi bu sahədə sosial ədaləti bərpa etməklə, həm də pensiyaların hesablanmasında mövcud olan neqativ halların, subyektiv yanaşmaların qarşısını alacaqdır. Artıq pensiyaya çıxmaq istəyən şəxs qanunla müəyyən edilmiş düsturlar əsasında çox rahatlıqla pensiyasının məbləğini hesablaya biləcək.

2. Regional idarəetməyə xüsusi önəm verilməsi

Cənab İlham Əliyevin sosial-iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri də regionların inkişafına xüsusi diqqətin yetirilməsidir. Bunun da ciddi səbəbləri mövcuddur. Daxili və xarici investisiyaların Bakı şəhərinə, onun infrastrukturunun yenilənməsinə cəlb edilməsi, regionlarda kommunal infrastrukturun bərbad vəziyyətdə olması, işsizliyin hökm sürməsi və s. Bakı ilə regionlar, hətta respublika əhəmiyyətli digər şəhərlər arasında tamamilə fərqli bir həyat yaratmışdı. Hamı şəhərdə yaşamaq, işləmək istəyirdi, regionlardan əhali şəhərə miqrasiya etməyə başlamışdı. Nəticədə bu şəhər həyatının ritmini də pozurdu. Belə bir tarixi məqamda Heydər Əliyevin yeni neft strategiyasının gerçəkləşməsi və ölkəmizə valyuta axını regionların sosial-iqtisadi problemlərinin həlli üçün davamlı maliyyə resurslarını yaratdı. Seçkilər ərəfəsində hamının prezidenti olmağa, 5 il ərzində 600 min iş yeri açmağa vəd verən İlham Əliyev "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında" 11 fevral 2004-cü il tarixli fərman imzaladı. Dövlət Proqramında və regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş digər sənədlərdə nəzərdə tutulmuş tədbirlərin icrası dövründə regionların siması tamamilə dəyişdi. Proqram ölkənin sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcı oldu, qeyri-neft sektorunun davamlı inkişafına, yeni iş yerlərinin açılmasına və müəssisələrin, o cümlədən istehsal və emal müəssisələrinin yaradılmasına, regionlarda kommunal, xidmət və sosial infrastruktur təminatının həcmi və keyfiyyətinin yüksəldilməsinə şərait yaratdı. Eyni zamanda sahibkarlıq mühitinin daha da yaxşılaşmasında, iqtisadiyyata investisiya qoyuluşlarının artmasında, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsində və yoxsulluğun azalmasında mühüm rol oynadı.

2004-2008-ci illər üzrə nəzərdə tutulmuş işlərin davamı olaraq ölkə Prezidenti tərəfindən 14 aprel 2009-cu ildə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiq edilməsi haqqında" növbəti fərman imzalandı. Yeni Dövlət Proqramı növbəti illər ərzində regional problemlərin həllinin daha geniş vüsət alacağını bir daha təsdiq edir.

3. Məqsədli dövlət proqramları inkişafa stimul yaradır

Dövlət büdcəsində nəzərdə tutulan vəsaitlərin son illərdə sosial müdafiə, elm, təhsil, səhiyyə və digər sahələrdə qəbul edilmiş məqsədli dövlət proqramları – Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı, 2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı, "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair Proqram (2005-2009-cu illər)", "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı", "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007-2010-cu illər)", "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı", "Xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)", "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) Dövlət Proqramı (2006-2015-ci illər)", "Texniki-peşə təhsilinin inkişafı Dövlət Proqramı (2007-2010-cu illər)", "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı", "Xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı, "Hemofiliya və talassemiya irsi qan xəstəlikləri üzrə Dövlət Proqramı", "Şəkərli diabet üzrə Dövlət Proqramı", "Onkoloji xəstələrin şiş əleyhinə əsas preparatlarla təminatı üzrə Tədbirlər Proqramı", "Yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı", "Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı", "Qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Dövlət Proqramı", "Elektron Azərbaycan Dövlət Proqramı", "Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)" əsasında xərclənməsi qeyd olunan sahələrin daha da inkişafına, bu sahədə şəffaflığın artmasına xidmət edir.

4. Sosial problemləri yaradan səbəblər aşkarlanır

Cənab İlham Əliyevin sosial siyasətində ilk növbədə problemləri yaradan səbəbləri aradan qaldırmaq üçün tədbirlər həyata keçirilir, müvafiq dövlət proqramları qəbul olunur. Problemlərə bu cür kompleks yanaşma, onları doğuran səbəblərin aradan qaldırılması mümkün neqativ nəticələrin baş verməsinin də qarşısını alır. Azərbaycan Respublikasında əhalinin ekoloji tələblərə cavab verən keyfiyyətli içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən keçirilmiş bir sıra tədbirlər nəticəsində onlarca yaşayış məntəqələrində modul tipli sutəmizləyici qurğular quraşdırılmışdır ki, bu da insanların sağlamlığının qorunmasına, eləcə də böyrək çatışmazlığı xəstəliklərinin baş verməsinin azaldılmasına imkan verəcəkdir.

Cənab İlham Əliyevin modern dövlət modelində beşinci istiqamət qeyri-hökumət təşkilatlarının timsalında cəmiyyətin sosial müdafiəyə cəlb olunması, insanlarda xeyriyyəçilik ruhunun tərbiyə olunmasıdır…

Ölkəmizdə sosial sahənin inkişafı barəsində danışarkən Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etməmək mümkün deyil. Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın əməyi sayəsində sosial həyatımızın ən müxtəlif sahələrində – elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə ciddi uğurlar əldə olunmuşdur. Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi, şəkərli diabet xəstəliyi olan uşaqlara yardım edilməsi, irsi qan xəstəliklərindən olan talassemiya və hemofiliya xəstəliklərinin müalicəsi, qan təminatının yaradılması, milli musiqimizin inkişafı ilə bağlı fəaliyyəti həyatımızda özünün ciddi nəticələrini göstərməkdədir.

**Sosial rifaha doğru**

Əlbəttə əhalinin sosial müdafiəsi sahəsində bizi qarşıda daha böyük işlər gözləyir. Bu işləri birdən həyata keçirmək mümkün deyil, çünki sosial sahə həddən artıq həssasdır, o radikal dəyişikliklərə dayanıqlı təsir göstərməyə bilər. Hazırda pensiya qanunvericiliyinin növbəti mərhələlərdə daha da təkmilləşdirilməsinə, sosial müdafiə sistemində sığorta münasibətlərinin – könüllü sosial sığorta, istehsalat qəzası və peşə xəstəliklərindən sığorta sahəsində qanunvericiliyin formalaşdırılmasına, sosial siyasətin ən vacib istiqamətlərindən olan əhalinin sağlamlığının qorunmasının daha da güclü mexanizmlərinin yaradılmasına ehtiyac var. Son illərdə tibb sahəsində irimiqyaslı işlər görülsə, əhatəli qanunvericilik bazası yaradılsa da tibbi sığortanın tam işə düşməməsi, bölgələrdə yüksək ixtisaslı tibbi kadrların çatışmazlığı son nəticədə tibbi xidmətin keyfiyyətinə təsir göstərir. Eyni zamanda reproduktiv sağlamlığın qorunması istiqamətində də ciddi işlərin görülməsinə ehtiyac var. Çünki insanın reproduktiv sağlamlığı onun yalnız fiziki sağlamlığının elementi deyil, bu həm də mənəvi rahatlığın, məmnunluq yaradan həyatın mühüm tərkib hissəsidir.

Yoxsulluğun aradan qaldırılması və davamlı inkişaf, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları çərçivəsində görülmüş və görüləcək tədbirlər insanların sosial-iqtisadi vəziyyətinin daha etibarlı qorunmasına şərait yaradacaqdır. Lakin müasir insanın yoxsulluqdan çıxması təkcə onun maddi gəlirlərinin minimum yaşayışını təmin etməsi ilə ölçülməməlidir, bu onun həm də mənəvi tələbatının ödənilməsi ilə müşayiət olunmalıdır. Yoxsul olmayan insan dedikdə kino, teatr və digər mədəniyyət müəssisələrinə getmək

imkanı olan, ekoloji təmiz ərzaq məhsulları və içməli su ilə təmin olunan, keyfiyyətli kommunal xidmətlərlə əhatə olunan, yaxşı infrastruktura malik ərazidə yaşayan insan nəzərdə tutulmalıdır. Dövlətimizin də qarşısında duran başlıca məqsədlərdən biri bundan ibarətdir.

Göründüyü kimi, sosial siyasətin Azərbaycan modeli uzunmüddətli inkişafda və təkmilləşməkdə olan, dünyanın ən sivil və mükəmməl ənənələrinə, dəyərlərinə söykənən bir modeldir.

“**Azərbaycan**“.-2010.-7 may.-N 98.-S.3.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN ELEKTRİK ENERJİSİ SİSTEMİ

**Etibar PİRVERDİYEV,**
"Azərenerji" ASC-nin prezidenti

**Digər sahələr kimi, elektroenergetikanın da inkişafında ümummilli lider Heydər Əliyevin xidmətləri böyükdür**

**Ölkə iqtisadiyyatının, onun sosial həyatının istər ötən əsrin 70-80-ci illərində, istərsə də müstəqillik dövründə dinamik inkişafı bir çox mühüm amillərlə yanaşı, elektrik enerjisi sistemi ilə də bağlıdır. Hazırda Azərbaycan müstəqil elektrik enerji sisteminə malikdir və bunun əsası ötən əsrin 70-ci illərində qoyulmuşdur.**

**Belə ki, Azərbaycanda elektrik enerjisi istehsalı hələ XIX əsrin sonu, XX əsrin əvvəllərindən başlansa da, uzun illər ərzində bu sahədə inkişaf ləng getmişdir.**

1969-cu ildə ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişindən sonra respublikanın sosial-iqtisadi həyatının mühüm sahələrindən biri olan elektrik enerjisi sisteminin sürətli inkişafını təmin etmək məqsədilə təxirəsalınmaz tədbirlər həyata keçirilmiş, bir çox irimiqyaslı layihələr reallaşdırılmışdır. Ümummilli lider Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə hələ ötən əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq respublikanın elektrik enerjisinə olan tələbatının yerli imkanlar hesabına ödənilməsinə yönəlmiş layihələrin həyata keçirilməsinə başlanmışdır. Həmin dövrdə bir-birinin ardınca yeni elektrik stansiyalarının, yüksək gərginlikli elektrik verilişi xətlərinin və yarımstansiyaların inşa edilib istifadəyə verilməsi respublikanın sənaye potensialının artırılmasında mühüm addım oldu. 1971-ci ildə Naxçıvan Muxtar Respublikası ərazisində Araz çayı üzərində İran-Azərbaycan "Araz" SES adı altında gücü 22 MVt olan stansiyanın inşası, 1972-ci ildə "2 saylı Sumqayıt İstilik Enerji Mərkəzi"nin gücünün 220 MVt-ya çatdırılması, 1976-1977-ci illərdə Sərsəng su anbarı və gücü 50 MVt olan eyniadlı su elektrik stansiyasının istifadəyə verilməsi məhz ümummilli liderin Azərbaycana rəhbərliyi dövrünə təsadüf edir. Bu illərdə həmçinin gücü 380 MVt olan Şəmkir Su Elektrik Stansiyası istismara buraxılmışdır. Ötən əsrin 80-ci illərində və elə bu gün də Cənubi Qafqazın ən böyük istilik-elektrik stansiyası sayılan, gücü 2400 MVt olan 8 enerji blokundan ibarət, kritik parametrdən də yüksək parametrlərdə işləmək imkanına malik "Azərbaycan" İES istismara buraxılmışdır.

"Azərbaycan" İES-in birinci enerji bloku 1981-ci il oktyabrın 20-də ulu öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə istifadəyə verilmiş, bu möhtəşəm hadisə Azərbaycan energetikasının inkişafında yeni bir mərhələnin əsasını qoymuşdur. 80-ci illərin əvvəllərində inşasını hətta SSRİ miqyasında ümumxalq tikintisi səviyyəsinə qaldırmağa müyəssər olduğu bu əzəmətli tikili bu gün də ümummilli liderin bütün qurub yaratdıqları kimi onun nurlu şəxsiyyətinin möhtəşəm abidəsi kimi ucalır. Ulu öndər Heydər Əliyevin səyi nəticəsində bu stansiyanın inşası prosesinin ümumittifaq səviyyəsində aparılması tikinti prosesinə ən peşəkar mütəxəssislərin cəlb olunmasına, müasir texniki vasitələrdən istifadəyə şərait yaratmışdır.

Stansiyanın birinci enerji blokunun işə salınması Azərbaycanda fərəh dolu əlamətdar hadisəyə çevrildi. Ulu öndərimizin bu münasibətlə 1981-ci ilin 20 oktyabrında Mingəçevir şəhərinə gəlişi, stansiyanın vəziyyəti ilə tanış olaraq energetiklərə və inşaatçılara öz dəyərli tövsiyələrini verməsi bu tarixi təqvimdə Azərbaycan energetiklərinin peşə bayramı günü kimi müəyyənləşdirmiş oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 13 oktyabr 2004-cü il tarixli sərəncamına əsasən, həmin gün "Energetik günü" kimi qeyd edilir.

Ölkə elektrik enerjisi sisteminin sütununu təşkil edən bu stansiya indi də müstəqil dövlətimizin enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna rola malikdir. Bu stansiyanın istismara verilməsi ilə elektrik enerjisi sistemində başlanan inkişaf və tərəqqi prosesi nəticəsində respublikamız sonralar özünün müstəqil, dayanıqlı enerji sistemini formalaşdıra bilmişdir. Ümumilikdə Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə ölkəmizin elektrik enerjisi ilə təminatı problemi öz həllini tapmışdır. Bu illərdə Azərbaycanın bütün yaşayış məntəqələrinə, o cümlədən hər bir evə elektrik xətti çəkilmişdir. Əgər 1969-cu ildə Azərbaycan elektrik enerjisi idxal edirdisə, 1982-ci ildə artıq elektrik enerjisi ixrac edən respublikaya çevrilmişdir.

Həmin dövrdə elektrik stansiyalarının inşası ilə yanaşı, elektrik şəbəkələri də sistematik inkişaf etdirilmiş və respublikamızın dayanıqlı enerji sistemi yaradılmışdır. O illərdə 330 kV-luq Əli Bayramlı İES – Ağdam – Gəncə – Ağstafa, Əli Bayramlı – Yaşma-Dərbənd, 5-ci Mingəçevir, 500 kV-luq 1-ci və 2-ci Abşeron, Muxranis – Vəli və digər elektrik verilişi xətləri, 330/110/20 kV-luq Yaşma, Gəncə, Ağstafa, 330/110/10 kV-luq İmişli, 500/330/220 kV-luq Abşeron, 220/110/10 kV-luq Hövsan, Nizami, Müşfiq, Səngəçal, Masallı, Ağsu, Babək və başqa qovşaq yarımstansiyaları istismara verildi. Bununla da elektrik enerjisi sahəsində yeni inkişaf mərhələsinin başlanğıcı qoyuldu.

Sonralar həmin şərəfli günləri xatırlayan müdrik rəhbər deyirdi: "Biz o illər bütün bu imkanlardan istifadə edərək eyni zamanda düşünürdük ki, hər respublikanın özünü təmin edə bilən iqtisadi potensialı olmalıdır. Bu iqtisadi potensialın tərkibində ən mühüm yer tutan elektrik enerjisi istehsal edən müəssisələr yaradılmalıdır. Ona görə də o illər Moskvanın etirazına, bu işimizə maneçilik törədən qüvvələrin çox güclü olmasına baxmayaraq, biz Azərbaycanın elektrik enerjisi müstəqilliyini, elektrik enerjisi sarıdan asılılıqdan qurtarmasını təmin etmək üçün respublikamızda güclü potensiala malik olan elektrik stansiyaları yaratmağa başladıq, buna da nail olduq".

Ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəlində baş vermiş hadisələr, Sovet İttifaqının süqutu elektrik energetikası sisteminə də təsirsiz ötüşmədi. Yaranmış siyasi və iqtisadi böhran nəticəsində elektrik enerjisi istehsalında böyük problemlər yarandı. Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində vaxtilə tikilib istifadəyə verilmiş "Azərbaycan" İES olmasaydı, respublikanın, o cümlədən paytaxt Bakının enerji təchizatında ciddi problemlər yaşana bilərdi. Beləliklə, Azərbaycanı o illərdə qurub yaradan, respublikanı bütün sahələr üzrə kənar asılılıqlardan çıxararaq dövlət müstəqilliyi üçün zəruri əsasları formalaşdıran ulu öndərin enerji sektoruna diqqət və qayğısının əsl səbəbləri Azərbaycan müstəqilliyə qovuşduqdan sonra daha aydın, dolğun şəkildə duyuldu.

1993-cü ilin iyununda xalqın istəyi və təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan ulu öndər iqtisadiyyatın bütün sahələrinə, o cümlədən elektrik enerjisi sisteminə də xüsusi diqqət göstərdi. Həmin dövrdə iqtisadiyyatın bütün sahələrində olduğu kimi, elektrik energetika sistemində də böyük böhran vəziyyəti yaranmış və sistemin ahəngdar işi pozulmuşdu. Ümummilli lider elektrik enerjisi sisteminin böhrandan çıxarılması, onun maddi-texniki bazasının yeniləşdirilməsi və möhkəmləndirilməsi üçün məqsədyönlü, genişmiqyaslı tədbirlər həyata keçirdi. Dünyanın aparıcı dövlətləri ilə qarşılıqlı faydalı əlaqələr qurulmasına yönəldilmiş strateji xətt elektrik enerjisi sisteminə də xarici sərmayələr cəlb olunmasına imkan yaratdı və bu imkanlardan Azərbaycanın enerji sisteminin mövcud potensialının səmərəliyinin artırılmasında, elektroenergetika təsərrüfatının yenidən qurulmasında və yeni güclərin yaradılmasında hal-hazırda da məqsədyönlü şəkildə istifadə olunur.

Tikintisi hələ 1984-cü ildən yarımçıq qalmış Şəmkir SES-in davamı olan Yenikənd su hövzəsinin və su elektrik stansiyasının inşasının başa çatdırılması ilə enerji sistemində yeni inkişaf mərhələsinin başlanğıcı qoyulmuşdur. Xatırladaq ki, maliyyə çatışmazlığı ilə əlaqədar tikintisi uzun illər mümkün olmayan Yenikənd su hövzəsində işlərin başa çatdırılması üçün lazımi vəsaitin əldə edilməsi problemini ulu öndər 1995-ci ilin dekabrında Böyük Britaniyaya işgüzar səfəri zamanı gündəmə gətirərək həllinə nail olmuşdur. Avropa Yenidənqurma və İnkişaf Bankı Yenikənd Su Elektrik Stansiyasının inşası məqsədilə 53,24 milyon ABŞ dolları məbləğində kredit ayırmış, respublika energetiklərinin və inşaatçıların gərgin işi nəticəsində 2000-ci ilin dekabr ayında stansiya istifadəyə verilmiş, burada elektrik enerjisi istehsalına başlanmışdır.

Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində işğal altında qalan "Ağdam" yarımstansiyası və 330 kV-luq Azərbaycan İES-Ağdam-İmişli EVX əvəzinə 330 kV-luq Ağcabədi, 110 kV-luq Bərdə yarımstansiyalarının və 330 kV-luq Azərbaycan İES-Ağcabədi-İmişli EVX-nin inşası zərurəti yaranmışdı. Avropa Yenidənqurma və İnkişaf Bankı və İslam İnkişaf Bankından ayrılmış kredit hesabına Mingəçevir SES-in yenidənqurulması, 330 kV-luq Ağcabədi, 110 kV-luq Bərdə yarımstansiyalarının və 330 kV-luq Azərbaycan İES-Ağcabədi-İmişli EVX-nin inşası həyata keçirildi.

"Şimal" ES-in yenidən qurulması da ulu öndərin adı ilə bağlıdır. 1998-ci ilin fevral ayında Yaponiyaya rəsmi səfəri zamanı ümummilli lider bu stansiyada 400 MVt gücündə buxar-qaz qurğusunun inşası layihəsinin maliyyələşdirilməsi üçün həmin ölkənin rəhbərliyinə müraciət etmiş və rəsmi Tokionun 210 milyon ABŞ dolları məbləğində uzunmüddətli, güzəştli kredit ayırmasına nail olmuşdur. 2000-ci ilin 19 dekabrında isə ümummilli lider tərəfindən qurğunun təməli qoyulmuş və obyekt 24 aydan sonra istismara verilmişdir.

1999-cu ilin iyun ayında 1 nömrəli Bakı İstilik-Elektrik Mərkəzində yenidənqurma işlərinin başlanması, ümummilli lider Heydər Əliyevin bu mərasimdə iştirakı, qaz-turbin qurğusunun təməl daşını qoyması da Azərbaycan energetika tarixinin ən əlamətdar hadisələrindəndir. Yenidənqurmanın ilk mərhələsi 2000-ci ilin noyabr ayında, ikinci növbəsi 2001-ci ilin iyulunda başa çatdırılmış və hər birinin gücü 53,5 MVt olan iki qaz turbini, aqreqat və qaz turbinindən çıxan qazların istiliyindən istifadə hesabına saatda 250 ton buxar istehsalı imkanına malik iki buxar generatoru istifadəyə verilmişdir.

Ulu öndərin şah əsəri olan "Əsrin müqaviləsi", Xəzərin zəngin neft və qaz ehtiyatlarından istifadə edilməsi üzrə digər müqavilələrdə nəzərdə tutulan tədbirlərin icrası Abşeron yarımadasının elektrik enerji təminatına yenidən baxılması zərurətini yaratdı. Burada yeni generasiya güclərinin işə salınması ilə yanaşı, yüksək gərginlikli elektrik şəbəkələrinin sistematik inkişaf etdirilməsi ön plana çəkildi.

Belə obyektlərdən biri də Bakı şəhəri və onun ətraf rayonlarının elektrik enerjisi təchizatında müstəsna əhəmiyyət kəsb edən "Müşfiq" yarımstansiyası oldu. Ulu öndər bu yarımstansiyanın gücünün artırılması, eyni zamanda enerji sistemin dayanıqlığının və təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədilə xarici ölkələrə rəsmi və işgüzar səfərləri zamanı bu yarımstansiya üçün maliyyə yardımının ayrılmasına nail oldu.

"Müşfiq" yarımstansiyasının genişləndirilməsi və 220 kV-luq Abşeron-Müşfiq yüksək gərginlikli elektrik verilişi xəttinin çəkilməsi" layihəsinin həyata keçirilməsi üçün Avropa İttifaqının Azərbaycana Fövqəladə Yardım Proqramı çərçivəsində maliyyə vəsaiti ayrılmışdır.

Ümumiyyətlə, ulu öndərin həyata keçirdiyi məqsədyönlü siyasət hesabına 3500 MVt-ya yaxın generasiya gücü işə salınmışdır. Elektrik enerjisi istehsalı isə təxminən 12 milyard kilovat-saatdan 22 milyard kilovat-saatadək, yəni 1,8 dəfədən çox artmışdır. İqtisadiyyatın sürətli inkişafı, əhalinin həyat tərzinin yaxşılaşması sayəsində istehlak 11,3 milyard kilovat-saatdan 23 milyard kilovat-saatacan, yəni 2 dəfədən çox artmışdır.

Ulu öndərin həyata keçirdiyi məqsədyönlü siyasət hesabına elektrik enerjisi sistemi respublikanın bütün ərazisini əhatə etməklə bərabər, Rusiya Federasiyası, İran İslam Respublikası, Gürcüstan və Naxçıvan Muxtar Respublikası tərəfindən Türkiyə enerji sistemləri ilə sıx əlaqəni təmin etmişdir. Bu, həm də ölkələrimiz arasında qarşılıqlı münasibətlərin daha da inkişafına, regionda sülhün, sabitliyin, təhlükəsizliyin qorunub saxlanmasına şərait yaradan ciddi amillərdən biridir.

Ulu öndərin müstəqil Azərbaycana rəhbərliyi dövründə ölkəmizin elektrik enerjisi sistemində qanunvericilik bazasının formalaşdırılması, bu sahəyə dair hüquqi əsasların təkmilləşdirilməsi istiqamətində də mühüm tədbirlər həyata keçirilmişdir. "Energetika haqqında", "Enerji resurslarından istifadə haqqında", "Elektroenergetika haqqında", "Elektrik və istilik stansiyaları haqqında" qanunların qəbulunun məhz həmin dövrə təsadüf etməsi buna sübutdur.

Ümummilli lider Heydər Əliyevin bu sahədə özünəməxsus uzaqgörənliklə müəyyənləşdirdiyi mükəmməl strateji xəttin uğurla həyata keçirilməsi və hazırda Prezident İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilməsi ölkəmizi regionun aparıcı dövlətinə, eyni zamanda Avropanın enerji təhlükəsizliyinin təminatçılarından birinə çevirmişdir. Ölkə iqtisadiyyatının inkişaf sürətini nəzərə alan dövlət başçısı "Azərbaycan Respublikasında yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) Dövlət Proqramı"nı təsdiq etmişdir. Ötən dövr ərzində dövlət proqramının uğurla həyata keçirilməsi nəticəsində respublikanın elektrik enerjisi sistemində generasiya gücünün artımı 2000 MVt-dan çox olmuşdur. Elektrik enerjisinin ötürülməsi sistemində isə ümumi gücü 2000 meqavoltamperə yaxın 500-dən artıq yeni transformator quraşdırılmış və ümumi uzunluğu 30 min kilometrdən artıq elektrik verilişi xətləri istifadəyə verilmişdir.

Hazırda iqtisadiyyatı gündən-günə inkişaf edən, elektrik enerjisi sisteminin dayanıqlığı təmin olunmuş Azərbaycanda yeni generasiya güclərinin tikilib istifadəyə verilməsi nəticəsində respublikamız qonşu dövlətlərin elektrik enerjisi təhlükəsizliyində də mühüm rol oynayır.

Bu gün respublikanın elektrik enerjisi sisteminin tərkibinə 13 istilik elektrik stansiyası (Azərbaycan İES, Şirvan İES, Sumqayıt ES, "Şimal" İES, Səngəçal ES, Bakı İEM, Bakı ES, Sahdağ ES, Astara ES, Xaçmaz ES, Şəki ES, Naxçıvan ES və Naxçıvan İES) və 6 su elektrik stansiyası (Mingəçevir, Şəmkir, Yenikənd, Varvara, Araz, Vayxır SES) fəaliyyət göstərir. Enerji sisteminin tərkibinə gərginliyi 500, 330, 220 və 110 kilovolt olan 200-dən artıq yarımstansiya daxildir. Bu yarımstansiyalarda mövcud olan transformatorların ümumi gücü 20000 meqavoltamperdən artıqdır. Gərginliyi 110 kV və ondan artıq olan 300-dən artıq elektrik verilişi xəttinin ümumi uzunluğu 8000 kilometrdən çoxdur. Gərginliyi 35, 10, 6 və 0,4 kilovolt olan paylayıcı xətlər də daxil olmaqla elektrik verilişi xətlərinin ümumi uzunluğu 100000 kilometrdən artıqdır.

Ölkə energetikləri həmişə olduğu kimi, bundan sonra da dövlətimizin enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, xalqımızın rifahının daha da yüksəldilməsi naminə və ulu öndər Heydər Əliyevin ideyalarının gerçəkləşməsi üçün var qüvvə ilə çalışacaq, onun layiqli davamçısı, Prezident İlham Əliyevin ətrafında daha sıx birləşərək, qarşıya qoyulmuş mühüm vəzifələrin yerinə yetirilməsinə nail olacaqlar.

**"Azərbaycan"**.-2010.-7 may.-N 98.-S.4.

# BEYNƏLXALQ HÜQUQ MƏKANINA UĞURLU İNTEQRASİYANIN BANİSİ

**Zahid CƏFƏROV,**
Bakı Dövlət Universitetinin Mülki proses,
əmək və ekologiya hüququ kafedrasının dosenti, hüquq elmləri namizədi

**Beynəlxalq hüquq kontekstində müşahidə olunan əsas tendensiyalardan biri də dövlətlərarası münasibətlərin və qloballaşmanın daha sürətli inkişaf yoluna qədəm qoyması, bu proseslərin dünya nizamının müəyyənləşməsində başlıca zəminlər sırasında yer almasıdır. Müasir dünya reallığı bir daha təsdiq edir ki, istənilən ölkənin sivil dünya ilə inteqrasiya etmədən, beynəlxalq birlikdə öz yerini tuta bilmədən sürətli inkişafı mümkün deyildir. Bu, hüquqi yanaşmadan tutmuş, siyasi, iqtisadi, mədəni və digər vacib sahələri əhatə edən kifayət qədər genişmiqyaslı bir prosesdir. Qeyd edilən fonda o da mühüm faktdır ki, iki və çoxtərəfli qaydada razılaşdırılmış beynəlxalq hüquqi müqavilələr, öhdəliklər, konvensiyalar və digər sənədlər təkcə dünyanın ümumi inkişaf mənzərəsini, ölkələrin yerinə yetirməli olduğu qaydalar məcmusunu müəyyənləşdirmir, həm də ayrıca götürülmüş hər bir dövlətin, xalqın seçdiyi tərəqqi yoluna öz təsirini göstərir.**

Bu mənada, hər bir dövlət qarşısında duran ən önəmli məsələlərdən biri də beynəlxalq inteqrasiya prosesində özünün hüquqi, siyasi, iqtisadi və digər bu kimi sahələrdə milli maraqlarının təmininə nail olunması ilə bağlıdır. Kifayət qədər ziddiyyətlərlə dolu bir dövr kimi xarakterizə edilən XX əsrin son onilliyində yenidən dövlət müstəqilliyini əldə edən Azərbaycan isə təəssüf ki, ilk illərdə beynəlxalq birliyə inteqrasiya sahəsində də ciddi problemlər yaşamağa başlamışdır. Bunun əsas səbəblərindən biri Azərbaycanı öz təsir dairəsində saxlamağa çalışan kənar qüvvələrin artan təzyiqləri idisə, digər önəmli məqam o dövrdə hakimiyyətdə təmsil olunan şəxslərin səriştəsizliyi, dünyanın siyasət meydanında cərəyan edən hadisələrdən baş çıxarmaqda çətinlik çəkmələri, dövlətin inkişafından daha çox şəxsi mənafelərini ön planda tutmaları idi. SSRİ kimi bir imperiyanın uzun illər əsarətində yaşayaraq suveren dövlət qurmaq hüququndan məhrum edilən Azərbaycan xalqı təbii ki, belə vəziyyətlə barışa bilməzdi. Nicat yolu, ümid isə yalnız bir şəxsə – bütün həyatını Azərbaycanın tərəqqisinə həsr edən, SSRİ-nin tərkibində olarkən belə respublikanın milli-mənəvi dəyərlərini, iqtisadiyyatını, sosial həyatını inkişaf etdirən ümummilli lider Heydər Əliyevə idi.

Xalqın istək və arzusu, israrlı tələbilə 1993-cü ildə ikinci dəfə hakimiyyət başına gələn ulu öndər müstəqil Azərbaycan dövlətinin əsaslarını qoymaqla bərabər onun ümumdünya və regional miqyaslı beynəlxalq təşkilatlarla inteqrasiyası, dünya dövlətləri ilə milli maraqların təmin edilməsi şərtilə əlaqələr qurması istiqamətində də mühüm addımlar atmışdır. Bunun ən önəmli nəticələrindən biri də ondan ibarət oldu ki, artıq həqiqi müstəqillik yoluna qədəm qoymuş Azərbaycana dünya birliyi ölkələrinin, beynəlxalq təşkilat və iş dairələrinin marağı artmağa başladı. Belə vəziyyət isə Azərbaycana milyardlarla dollar xarici investisiyaların gəlişini təmin etməklə yanaşı, onun dünyada mövqelərini möhkəmləndirməkdə, beynəlxalq hüququn daha güclü müstəqil subyektinə çevrilməsinə gətirib çıxarmaqda idi. Ulu öndərin rəhbərliyi altında Azərbaycanın beynəlxalq birliklə, ayrı-ayrı xarici dövlətlərlə, o cümlədən yaxın qonşularla münasibətləri qarşılıqlı hörmət, etimad, əməkdaşlıq əsasında quruldu və bu kontekstdə bərabərhüquqlu tərəfdaşlıq təmin olunurdu. Elə bu da beynəlxalq inteqrasiya prosesində həm də ölkəmizin uğurlu hüquqi, siyasi fəaliyyətindən xəbər verən əsas göstəricilərdən hesab olundu. Azərbaycanın tamamilə düzgün müəyyən edilmiş inkişaf kursunda ümummilli liderin diqqət yetirdiyi vacib məsələlər sırasında ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridilməsi, vətəndaş cəmiyyətinin, xüsusən də insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması ilə əlaqədar olmuşdur. Çünki bütün bunlar olmadan beynəlxalq birliyə, ilk növbədə isə Avratlantik məkana istər hüquqi, istərsə də digər zəmində davamlı inteqrasiyanın olması mümkünsüz idi. Beləliklə, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmizdə həm də hüquqi dövlət qurucuğuluğu, demokratik dəyərlərin bərqərar olması prosesi başlanmış, bu kontekstdə də Azərbaycanın dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri mühüm nəticələrin əldə olunmasına səbəb olan, hüquqi, siyasi, iqtisadi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlamışdır.

Bütün bunlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dünya birliyinin baxışlarının dəyişməsində də mühüm rol oynamaqla yanaşı, beynəlxalq ictimaiyyətin ölkəmizin ərazi bütövlüyünə, ədalətli mövqeyinə daha böyük dəstək verməsinə səbəb olmuşdur. Dünya aydın görürdü ki, Ermənistandan fərqli olaraq, Azərbaycan sərhədlərin toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə, sülhə, beynəlxalq hüquq normalarına sadiqdir və Dağlıq Qarabağ münaqişəsinin həllində məhz bu prinsiplərin tətbiq olunmasını istəyir. Bu məsələdə ulu öndər dünyanın ən böyük təşkilatı sayılan BMT-nin tribunasından, sözügedən qurum çərçivəsində həyata keçirilən tədbirlərdən məharətlə istifadə edir, Ermənistanın işğalçılıq siyasətini tamamilə ifşa edirdi. BMT

Təhlükəsizlik Şurasının sözügedən münaqişəsinin həllinə dair məlum 4 qətnaməsi ilə yanaşı, təşkilatda aparılan digər yeni müzakirələrdə də Dağlıq Qarabağın Azərbaycana məxsus ərazilər olduğu vurğulanırdı. Bununla yanaşı, BMT-nin müxtəlif qurumlarında fəaliyyətin genişləndirilməsi istiqamətində atılan addımlara müvafiq olaraq Ermənistanın təcavüzü nəticəsində qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün BMT İnkişaf Proqramı, Qaçqınlar üzrə Ali Komissarlıq, Ümumdünya Ərzaq Proqramı, YUNİSEF və başqa təşkilatlar çərçivəsində onlara humanitar yardımlar edilmişdir.

Burada bir məqamı da xüsusi qeyd etmək lazım gəlir ki, ulu öndərin BMT-Azərbaycan münasibətlərinin inkişafında açdığı yol, həyata keçirdiyi siyasət onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək daha da zənginləşdirilir və bu sahədə ölkəmizin milli maraqlarının təminatı daha da gücləndirilir. Qeyd olunanlarla bağlı təkcə bir faktı xatırlatmaq kifayətdir ki, BMT-nin Baş Məclisində 2008-ci ilin mart ayında Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş torpaqlarında vəziyyətlə bağlı qətnamə qəbul olunmuşdur. Həmin qətnamənin qəbulunu yüksək qiymətləndirən Prezident İlham Əliyev bildirmişdir ki, bu, həqiqətən Azərbaycanın böyük siyasi və diplomatik qələbəsidir. “Bu qətnamənin qəbul olunması üçün çox böyük işlər görülübdür. İctimaiyyət, təbii ki, bunun son nəticəsini görür. Görür ki, artıq səsvermədə Azərbaycan böyük üstünlüklə qələbə qazanıb. Amma bunu təmin etmək üçün nə qədər böyük səylər göstərilibdir. Əlbəttə ki, bunu hamı bilə bilməz. Bu qətnamə artıq digər beynəlxalq təşkilatlara da öz təsirini göstərir. Bu yaxınlarda Avropa Şurası tərəfindən qəbul edilmiş sənəddə artıq BMT Baş Məclisindəki sənədə istinad edilir… Bu onu göstərir ki, məqsədyönlü siyasət və düşünülmüş addımlar nəticəyə, uğura gətirib çıxarır”.

ATƏT çərçivəsində də bununla bağlı fəal işlər görülür, Dağlıq Qarabağ münaqişəsinin çözümü istiqamətində ATƏT tribunasından və Minsk qrupunun potensialından daha səmərəli istifadə etmək üçün ölkə rəhbərliyi tərəfindən konkret addımlar atılırdı. Bununla bağlı görülən işlərin indi məntiqi yekunu ondan ibarətdir ki, ATƏT-in Minsk qrupu tərəfindən münaqişənin həlli məqsədilə irəliyə sürülən təkliflər Azərbaycanın ərazi bütövlüyünü özündə ehtiva edir, Ermənistan işğalçı dövlət kimi qəbul olunaraq onun öz silahlı qüvvələrini zəbt olunmuş Azərbaycan ərazilərindən çıxarması, qaçqın və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıtmaları nəzərdə tutulur.

2001-ci ilin yanvarında Azərbaycanın Avropa Şurasına üzv olmasından sonra yenə də Heydər Əliyevin rəhbərliyi altında bu qurumdan Ermənistanın işğalçılıq, azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı siyasətinin ifşa edilməsi üçün də növbəti beynəlxalq tribuna olaraq istifadə edildi. Ölkəmizin quruma üzvlüyündən sonra AŞ PA-da Azərbaycanı təmsil edən nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyevin təşəbbüskarlığı və diplomatik fəallığı nəticəsində elə ilk sessiyadan etibarən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair həqiqətləri özündə əks etdirən sənədlər yayılmağa başladı.

Sonrakı dövrdə də Azərbaycan Avropa Şurasında ermənilərin mövqelərinə biri-birinin ardınca diplomatik zərbələr endirməkdə davam edir və təşkilatda Ermənistanın işğalçılıq siyasətinə qarşı yeni-yeni sənədlərin qəbul edilməsinə nail olurdular. Belə mühüm sənədlərdən biri də AŞ PA-nın 2005-ci ilin yanvarında qəbul etdiyi 1416 saylı yeni qətnamə olmuşdur. AŞ PA tərəfindən Ermənistanın işğalçılıq siyasətinə qarşı daha bir ciddi zərbə olan bu qətnamədə yer alan müddəalar Ermənistanın işğalçı dövlət olduğunu təsdiq edir, Dağlıq Qarabağ regionunun separatçı qüvvələrin nəzarəti altında qaldığı xatırlanırdı. Bununla bağlı qətnamənin xülasə hissəsində qeyd olunurdu: “Azərbaycan ərazisinin böyük bir hissəsi hələ də Ermənistan qoşunlarının işğalı altındadır. Hərbi əməliyyatlar və bu əməliyyatlardan qabaq geniş surətdə yayılmış etnik düşmənçilik etnik mənsubiyyətinə görə insanların geniş miqyasda yerlərindən qovulmasına və dəhşətli etnik təmizləmə konsepsiyasını xatırladan monoetnik ərazilərin yaradılmasına gətirib çıxarmışdır. Dağlıq Qarabağ regionu hələ də separatçı qüvvələrin nəzarəti altındadır.

Assambleya üzv dövlət tərəfindən xarici ərazinin işğal edilməsini bu dövlətin Avropa Şurasının üzvü kimi öhdəliyinin ciddi pozulması olduğunu bir daha təkrar edir və münaqişə ərazisindən olan məcburi köçkünlərin təhlükəsizlik şəraitində və ləyaqətlə öz evlərinə qayıtmaq hüquqlarının olduğunu bir daha təsdiqləyir”. Sözügedən qətnamənin ən mühüm cəhəti Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinin Avropada fəaliyyət göstərən beynəlxalq təşkilat səviyyəsində ilk dəfə belə açıq etiraf edilməsi və bunun presedent yaratması olmuşdur.

Ermənistanın Azərbaycana təcavüz faktını tanıyan İslam Konfransı Təşkilatı çərçivəsində də ölkəmiz ulu öndər Heydər Əliyevin rəhbərliyi altında ciddi uğurlara imza atmışdır. Bu xüsusda isə 1996-cı ildə İndoneziyada İslam Konfransı Təşkilatı xarici işlər nazirlərinin növbəti konfransında qəbul edilən qətnaməni xüsusi qeyd etmək lazım gəlir. Bu qətnaməni əvvəlkilərdən fərqləndirən əsas cəhət onun adı olmuşdur: “Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında”. Halbuki əvvəlki qətnamələr sadəcə olaraq “Ermənistan və Azərbaycan arasında münaqişə üzrə” adlanırdı. Qətnamədə yenidən Ermənistanın işğalçı siyasəti pislənilir və işğal edilmiş ərazilərin boşaldılması tələb olunurdu. Həmçinin qətnamədə

Ermənistanın təcavüzkar addımlarının sülh prosesinə mane olduğu da vurğulanırdı. Sonrakı dövrlərdə də İslam Konfransı Təşkilatı Ermənistanın Azərbaycana qarşı təcavüz siyasətini pisləyən bir sıra sənədlər qəbul etmişdir.

Bundan başqa, ölkəmiz Avropa İttifaqı, NATO, MDB, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, digər təşkilatlarla da əlaqələrini yüksək səviyyədə inkişaf etdirmişdir ki, bu proses indi də uğurla davam edir. Həmin təşkilatlarla da əməkdaşlıq çərçivəsində diqqət yetirilən ən mühüm məsələlərdən biri məhz Dağlıq Qarabağ münaqişəsi və onun ədalətli həllinə nail olunması üçün ölkəmizə dəstək verilməsi ilə bağlı olmuşdur. Son illərdə isə paytaxt Bakının və ölkəmizin digər şəhər və rayonlarının bir çox nüfuzlu, müxtəlif səpkili, yüksək səviyyəli beynəlxalq tədbirlərə ev sahibliyi etməsi Azərbaycanın beynəlxalq təşkilatlarla, dünya dövlətləri ilə münasibətlərinin yüksələn xətt üzrə inkişaf etdiyinin, ölkəmizin dünya miqyasında nüfuzunun artmasının əsas göstəricilərindən biri hesab oluna bilər. Bütün bunlar onu göstərir ki, beynəlxalq birliyə uğurlu inteqrasiya yolu seçən Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında mühüm nailiyyətlərə imza ataraq özünün ədalətli mövqeyini dəstəkləyən beynəlxalq hüquqi sənədlərin qəbul olunmasına nail olmuşdur. Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu siyasət əsrimizin ən görkəmli liderlərindən olan Prezident İlham Əliyev tərəfindən kifayət qədər müvəffəqiyyətlə davam etdirilməkdədir.

Lakin aydındır ki, Azərbaycanın beynəlxalq birliyə hüquqi, siyasi, iqtisadi, mədəni və digər sahələri əhatə edən inteqrasiya siyasəti təkcə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünyaya çatdırılması və bu xüsusda ədalətli qərarların qəbulu ilə məhdudlaşmamışdır. Məlumdur ki, Heydər Əliyevin böyük siyasi iradəsi və müdrik uzaqgörənliyi sayəsində əhəmiyyətli beynəlxalq müqavilələrə imza atılmış və onların həyata keçirilməsinə başlanmışdır. Ulu öndərin təşəbbüsü ilə böyük siyasi məna kəsb edən bir sıra dünya miqyaslı iqtisadi proqramların həyata keçirilməsində Azərbaycan aparıcı rol oynamışdır.

Bununla yanaşı, beynəlxalq hüquq məkanına inteqrasiyanın vacib şərti kimi çıxış edən demokratikləşmə prosesi çərçivəsində Azərbaycanda Heydər Əliyevin rəhbərliyi altında qabaqcıl dünya standartlarının tətbiqi həyata keçirilmiş, demokratik dəyərlər ölkəmizdə bərqərar olunmuşdur. Bu məsələdə hər bir demokratik ölkə kimi Azərbaycan da daxili qanunvericilik bazasını beynəlxalq hüquqa uyğun şəkildə yeniləmiş, qoşulduğu konvensiyalardan, müqavilələrdən, razılaşmalardan irəli gələn yeni qanunlar qəbul etmişdir. Həmçinin qanunvericilik beynəlxalq tələblərə uyğun olaraq dəyişdirilmişdir.

Bütün bu proseslər çərçivəsində isə Heydər Əliyev yaxşı bilirdi ki, demokratik dəyərlərin üstünlüyünü qəbul edən, insan hüquq və azadlıqlarının reallaşdırılmasına hər cür şərait yaradan hüquqi dövlət quruculuğu yolunda Konstitusiyanın qəbulu kifayət qədər böyük önəm daşıyır. Digər tərəfdən, bir iqtisadi formasiyadan digərinə keçiddə, hüquqi sistemin köklü şəkildə dəyişdiyi, cəmiyyətdə keçid dövrünün başlandığı bir vaxtda müstəqil dövlətin Konstitusiyasının yoxluğu bu proseslərin irəliyə doğru inkişafında müəyyən çətinliklər yaradırdı. Qeyd edilənləri aydın görən ümummilli lider müstəqil Azərbaycanın ilk milli Konstitusiyasının qəbulu istiqamətində konkret addımlar atmışdır. Belə ki, Heydər Əliyevin rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanaraq ümumxalq müzakirəsinə çıxarılan Konstitusiya layihəsi 1995-ci il noyabrın 12-də keçirilən referendumda qəbul edilmişdir. Azərbaycanın Əsas Qanununun qəbulunun tarixi xarakterə malik mühüm əhəmiyyətlərindən biri də sözügedən sənədin ölkəmizdə insan hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun möhkəm təməlini təşkil etməsi olmuşdur. Digər tərəfdən, Konstitusiyada beynəlxalq-hüquqi fəaliyyətin əsasları da ehtiva olunmuş, burada təsbit edilmiş müddəalar beynəlxalq hüququn tələblərinə cavab vermişdir.

Əsas Qanunun qəbulu hüquqi dövlət quruculuğunun tələblərinə uyğun olaraq bir sıra yeni institutların, o cümlədən Konstitusiya Məhkəməsinin, insan hüquqları üzrə müvəkkilin (Ombudsmanın), yerli özünüidarəetmə orqanlarının yaradılmasına səbəb olmuşdur. Bundan başqa, dövlət quruluşunda hakimiyyətlər bölgüsü prinsipinə ciddi əməl edilməsinə dair müddəaların əksi ölkəmizdə demokratik siyasi sistemin qurulması istiqamətində böyük önəm daşımışdır. Konstitusiya maddələrinə müvafiq olaraq dövlət idarəetmə sistemində icra, qanunvericilik və məhkəmə orqanlarının səmərəli fəaliyyətinin təmin edilməsi, eləcə də müxtəlifyönlü siyasi partiyaların, ictimai təşkilatların, həmçinin kütləvi informasiya vasitələrinin azad fəaliyyəti üçün şərait yaradılması demokratik inkişafın daha sürətli mərhələsinin başlanmasından xəbər verirdi.

Siyasi plüralizmin, fikir və vicdan azadlığının təmin edilməsi, tolerantlıq mühitinin formalaşması, insan hüquqlarının təmin edilməsi və qorunması isə Azərbaycanı daha böyük sürətlə Avratlantik məkana yaxınlaşdırırdı. Ümummilli lider həmin dövrdə qəbul edilmiş qanunların əhəmiyyəti barədə danışarkən isə bunları söyləmişdir: “Bu qanunlar Azərbaycanda müstəqil dövlətin inkişafı, iqtisadi islahatların aparılması üçün, qanunun aliliyini təmin etmək, hüquqi dövlət yaratmaq üçün çox əhəmiyyətli olmuşdur”.

Dünya birliyinə inteqrasiya yolunda atılan mühüm addımlardan biri isə 1993-cü ilin iyun ayından ölkəmizdə ölüm cəzasının icrasına moratorium qoyulması, daha sonra ölüm cəzasının tətbiqinin

məhdudlaşdırılması və 1998-ci il fevralın 10-da Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi olmuşdur. Ulu öndərin humanizm prinsiplərinə söykənən siyasəti və bu kontekstdə imzaladığı əfv sərəncamları da beynəlxalq birlik tərəfindən hər zaman yüksək qiymətləndirilmişdir. 1995-ci ildən ölkəmizdə əfv və amnistiya təsisatları bərpa edilməsi sayəsində isə on minlərlə insan yenidən ən böyük nemət sayılan azadlığa qovuşmuşdur.

Heydər Əliyevin insan hüquq və azadlıqlarına verdiyi yüksək dəyərin daha bir göstəricisi isə 1998-ci il 22 fevral tarixində "İnsan və vətəndaşın hüquq və azadlıqlarının təmin edilməsi sahəsindəki tədbirlər haqqında" imzaladığı fərman olmuşdur. Həmin fərmandan sonra 1998-ci il 18 iyun tarixində qanunvericilik və institusional islahatların həyata keçirilməsinin nəzərdə tutulduğu "İnsan haqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiqi bu istiqamətdə yeni mühüm addım olmuşdur. Sözügedən proqramda Azərbaycanın konkret inkişaf mərhələsinə uyğun olaraq insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması, elmi-tədqiqat institutunun yaradılması, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, mütəxəssislərin hazırlanması, öhdəliklərə əməl edilməsi və digər vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Burada əsas məqsədlərdən biri də ondan ibarət idi ki, hər bir şəxs Konstitusiyada təsbit edilmiş hüquqlarının həyata keçirilməsi üçün bütün imkanlara malik olsun. Həmçinin sözügedən proqrama uyğun olaraq, ölkədə demokratik ədalət prinsiplərinə əsaslanan yeni məhkəmə sistemi və Konstitusiya nəzarəti institutunun yaradılması, hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi nəzərdə tutulmuşdur.

Yeri gəlmişkən qeyd edək ki, məhz Heydər Əliyevin bilavasitə təşkilatçılığı və rəhbərliyi ilə ölkəmizin məhkəmə-hüquq sistemi beynəlxalq standartlara uyğun şəkildə yenidən formalaşdırılmış, bu sahədə aparılan islahatlar hüquqi dövlət quruculuğunun uğurla həyata keçirilməsində böyük əhəmiyyət kəsb etmişdir. Bu xüsusda aparılan kompleks tədbirlər sırasında Heydər Əliyevin 18 iyul 1998-ci il tarixli "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətinin təmin edilməsi haqqında", eləcə də 1 dekabr 1998-ci il tarixli "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə" fərmanları böyük əhəmiyyətə malik olmuşdur. Ardıcıl surətdə aparılan məhkəmə islahatlarının başlıca məqsədi Azərbaycanda qanunun aliliyinin təmin edilməsi, məhkəmə hakimiyyətinin dövlət idarəçilik mexanizmində nüfuzlu və müstəqil təsisat kimi təşəkkül tapması, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkili, cinayət və mülki mühakimədə demokratik prinsiplərin qorunması, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsi və digər məsələlərin konseptual həlli olmuşdur.

Qeyd edilənlərlə yanaşı, ölkədə qəbul olunan bir çox qanunların, o cümlədən "Sərbəst toplaşmaq azadlığı haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Məlumat azadlığı haqqında", "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Vətəndaşlıq haqqında" və digər qanunların ruhunun əsasını məhz insan hüquqlarının müdafiəsinin etibarlı təminatı təşkil etmişdir ki, bu da Azərbaycanın beynəlxalq birliyə tamhüquqlu üzv kimi qəbul olunması üçün müvafiq hüquqi bazanın yaradılması istiqamətində mühüm əhəmiyyət daşımışdır. Bütün bunlar həm də onu göstərirdi ki, Heydər Əliyev insanın azadlıq və hüquqlarına yaşadığımız dünyada özünü göstərən fərqli dövlət quruluşlarının, siyasi sistemlərin, ideologiyaların və mədəniyyətlərin mövcudluğu zəminində dünyada toplumları, xalqları, cəmiyyətləri birləşdirən, onlara humanist dəyərlər aşılayan əsas meyar kimi dəyərləndirir. Məhz elə bu da beynəlxalq birliyə inteqrasiya prosesində mühüm cəhətlərdən birini təşkil etmişdir.

İnsan hüquqlarının müdafiəsi, demokratik dəyərlərin bərqərar olması fonunda Azərbaycanın dünya birliyinə uğurlu inteqrasiya siyasəti bu gün ulu öndərin siyasi kursunun layiqli davamçısı Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən böyük uğurla inkişaf etdirilir. Bunun nəticəsidir ki, Azərbaycanın dünyada beynəlxalq imicini xarakterizə edən əsas cəhətlərdən biri demokratik prinsiplərə sadiqlik, hüquqi dövlət quruculuğu prosesinin daha geniş vüsət alması, vətəndaş cəmiyyətinin daha möhkəm özüllər üzərində bərqərar olması üçün davamlı islahatlar aparan ölkə adı qazanmasıdır.

Bütün bunlar təbii olaraq Azərbaycanın dünya miqyasında mövqelərinin daha da güclənməsinə, beynəlxalq hüququn müstəqil subyekti kimi nüfuzunun daim yüksəlməsinə mühüm töhfələr verməkdədir. İqtisadi sahədə keçid dövrünü başa çatdıran Azərbaycan Heydər Əliyevin layiqli varisi olan Prezident İlham Əliyevin rəhbərliyi altında bu gün daha sürətli inkişaf yoluna qədəm qoymuş, beynəlxalq hüquq məkanının ayrılmaz subyektlərindən birinə çevrilmişdir.

"**Azərbaycan**".-2010.-7 may.-N 98.-S.7.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN SAHİBKARLIQ STRATEGİYASI

**Məmməd Musayev,**
Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər)
Təşkilatları Milli Konfederasiyasının Prezidenti

**Müstəqilliyimizin ilk illərində, kənar qüvvələrin və təcavüzkar güclərin bütün həmlələrinə baxmayaraq gənc dövlətçiliyimiz ayaq üstə duruş gətirə bildi. Çörəklə sınağa çəkilən millətimiz bütün ehtiyacların fonunda ən müqəddəs dəyərini – azadlığını qoruyub saxladı. Amma qara qüvvələr bəd niyyətlərini həyata keçirməkdə israrlı idilər və 1993-cü ildə ölkənin vətəndaş müharibəsi həddinə gətirilməsi məhz bu məkrdən qaynaqlanırdı. Həmin dövrdə xalqın istək və tələbi ilə ulu öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə gəlməsi Azərbaycanı ziddiyyətlər burulğanından xilas etdi. Dünyada gedən siyasi proseslərə peşəkar təsir imkanları olan Heydər Əliyev Azərbaycanda zamanla səsləşən yeni iqtisadi strategiyanın əsasını qoydu. Ölkədə qarşıdurmadan sülhə, böhrandan tərəqqiyə, ətalətdən dinamik fəaliyyətə istiqamətlənən həyat tərzi başlandı. Azərbaycanın dünya iqtisadi bazarına çıxışını təmin edən əsrin müqaviləsinin imzalanması həm də ölkə daxilində yeni-yeni istehsal sahələrinin artmasına, insanların həyat səviyyəsinin yaxşılaşdırılmasına şərait yaratdı.**

Müasir Azərbaycan tarixində qazanılmış ən böyük uğurlar xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev milli varlığımızı bütövləşdirmiş, yaxın və uzaq gələcəkdə uğur qazanmağın, Azərbaycanı inkişaf etdirməyin aydın yollarını göstərmiş, ən dəqiq taktika və strategiyanı müəyyən etmişdir. Heydər Əliyev ölkəmizdə vətəndaş cəmiyyətini inkişaf etdirməyin əsaslarını yaratmış dahi şəxsiyyətdir

Onun rəhbərliyi altında iqtisadı və dövlət idarəetmə sistemi sahəsində aparılan kompleks islahatlar ölkədə iqtisadiyyatın bütün sahələrinin, o cümlədən sahibkarlığın formalaşmasına güclü təkan vermişdir.

Müstəqil Azərbaycanın memarı olan ulu öndər azad sahibkarlığın inkişafına daim diqqət göstərmiş və respublikamızın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun tərəqqisi ilə əlaqələndirmişdir. Bu da onu deməyə əsas verir ki, həyata keçirilən iqtisadi siyasət sahibkarlığın inkişafının sürətləndirməsinə, ölkənin sosial – iqtisadi problemlərinin həllində sahibkarlığın rolunun gücləndirilməsinə, bu istiqamətdə dövlət gayğısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılmasına yönəlmişdir. Bu məqsədlə qanunvericilik bazasının formalaşdırılması, bürokratik maneələrin aradan qaldırılması, maliyyə dəstəyinin göstərilməsi və digər sahələrdə mühüm əhəmiyyətli addımlar atılmışdır.

İqtisadiyatın ümumi inkişafı ilə yanaşı ölkənin aqrar sahəsinin də inkişafı daim ulu öndərin diqqət mərkəzində olmuşdur. Hələ 1994-cü il dekabırın 10-da keçirilmiş “Aqrar islahat: problemlər və onların həllin yolları” mövzusunda beynəlxalq konfrasda çıxış edən ümummilli lider demişdir: “… Biz islahatçı qüvvələrə yol açmalı, islahatları cəsarələ həyata keçirməliyik. Ən əsas prinsiplərdən biri odur ki, gərək xalqımıza, xüsusən kasıb təbəqəyə, kəndlilərə, daim torpagla bağlı adamlara zərər vurulmasın, əksinə xeyir gətirilsin. İslahatlar yeni sahibkarlar yaradacaq, ancaq aqrar bölmə ilə bağlı hər bir adam öz payını almalıdır. Bu islahatlar xalqımızın ümumi rifahının qaldırılması üçün həyata keçirilməlidir”. Belə də oldu. Ölkədə aparılan məqsədyönlü aqrar islahatlar nəticəsində 4270 kənddə yaşayan 850 mindən çox ailə torpaq mülkiyyətçisinə çevrildi, bu torpaqlardan səmərəli istifadə olunması üçün onlar dövlət qayğısı ilə əhatə olundular.

Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi ilə bağlı qanunvericilik bazasının yaradılması sahəsində qəbul edilən sənədlərdə bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şəraitin yaradılması, sahibkarlığa hüquqi təminatın verilməsi və rəqabət mexanizminin formalaşması, həmçinin rəqabətin qorunması ilə bağlı müddəalar öz əksini tapmışdır. Bu sənədlər iqtisadiyyatın bütün sahələrini əhatə etməklə azad rəqabətin təmin olunmasına və iqtisadiyyatın dinamik inkişafına xidmət etmişdir.

Sahibkarlığın inkişafı istiqamətində 1993-1995-ci illəri və 1997-2000-ci illəri əhatə edən iki dövlət proqramının qəbul edilməsinin xüsusi rolu olmuş, kiçik və orta sahibkarlığın inkişafı Azərbaycan dövlətinin iqtisadi siyasətinin prioritet sahələrindən birinə çevrilmişdir. Bu proqramlar çərçivəsində iqtisadiyyatın və sahibkarlığın tənzimlənməsi sahəsində əhəmiyyətli tədbirlər həyata keçirilmiş, sahibkarlara dövlət maliyyə köməyi sistemi təşkil edilmişdir.

Sahibkarlığın inkişafının mühüm şərtlərindən biri olan infrastrukturun formalaşdırılması sahəsində vacib işlər görülmüş, sahibkarlara zəruri texniki yardım – məsləhət, informasiya və s. xidmətlər göstərən strukturlar yaradılmışdır.

1993-cü ildən Azərbaycan iqtisadiyyatına yatırılan sərmayələrin həcminin ilbəil sürətlə artması ölkəmizdə həm daxili, həm də xarici investisiya üçün yaradılan əlverişli mühitin məntiqi nəticəsidir. Xarici investisiyanın ölkəmizə cəlb olunması ümummilli lider Heydər Əliyevin apardığı uzaqgörən siyasət sayəsində

mümkün olmuşdur. Ulu öndərin bu sahədə verdiyi tövsiyə və tapşırıqları əldə rəhbər tutaraq xarici investisiya haqqında təkmil qanunvericilik bazası yaradılmışdır. Xarici investisiyaların cəlb olunması və qorunması istiqamətində atılan addımlar Azərbaycanla müxtəlif ölkələr arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlərin təsdiq edilməsi ilə bağlıdır.

Ulu öndər Heydər Əliyevin bilavasitə tapşırığı əsasında 1997-ci ildən başlayaraq vergi münasibətlərinin tənzimlənməsi sahəsində vahid qanunvericilik bazasının yaradılması məqsədilə Vergi Məcəlləsinin layihəsinin hazırlanmasına başlanmışdır. Bu layihənin hazırlanması prosesində onun ayrı-ayrı hissələri dövlət başçısı yanında dəfələrlə müzakirə edilmiş, vergitutmanın sadələşdirilməsi, bazasının genişləndirilməsi, vergi yükünün azaldılması, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi barədə dəyərli tövsiyələri bu işin uğurla başa çatdırılmasına kömək etmişdir.

Vergi Məcəlləsinin qəbul edilməsi ölkənin həyatında tarixi hadisə olaraq vergi sisteminin təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində atılmış ən başlıca addım oldu və bu, hər şeydən əvvəl müdrik siyasətçi Heydər Əliyevin uğurlu iqtisadi siyasətinin məntiqi nəticəsi kimi qiymətləndirilməlidir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında sahibkarlığın inkişafında dövlət nəzarət sisteminin təkmilləşdirilməsinin özünəməxsus rolu olmuşdur. Məlum olduğu kimi iqtisadi canlanmanın vüsət aldığı dövrdə nəzarət işləri ilə məşğul olan dövlət orqanlarının fəaliyyəti ümumilikdə respublikanın iqtisadi böhrandan çıxmasında subyektiv maneələr yaradır, iqtisadi islahatların tələblərinə cavab vermir və çox vaxt sahibkarlığın inkişafına süni maneçilik törədirdi. Buna görə də bu problem müdrik siyasətçi Heydər Əliyev tərəfindən xüsusi nəzarətə götürülmüş və qısa müddətdə kompleks tədbirlərin həyata keçirilməsinə başlanılmışdı. İlk addım kimi ölkə Prezidenti tərəfindən 17 iyun 1996-cı il tarixli "İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" fərman imzalanmışdır. Məqsəd iqtisadi münasibətlərin səviyyəsinə uyğun müvafiq dövlət nəzarət mexanizmini tətbiq etmək, həmin nəzarətin daha məqbul vasitələrini seçmək, bazar münasibətlərinin inkişafına mənfi təsir göstərəcək halların qarşısını almaq, vətəndaşların və hüquqi şəxslərin qanuni mənafelərini qorumaq idi. Fərmanın imzalanmasından bir müddət sonra dövlət nəzarətinin təkmilləşdirilməsi sahəsində əhəmiyyətli işlər görülmüşdür. Belə ki, iqtisadi sahədə bir-birini təkrarlayan, paralel və lüzumsuz yoxlamaların sayı azalmış, bazar iqtisadiyyatının inkişafına mənfi təsir göstərən bir sıra halların qarşısı alınmış, vətəndaşların və hüquqi şəxslərin qanuni mənafelərinin qorunması məqsədi ilə həm qanunvericilik, həm də inzibatçılıq sahəsində müəyyən tədbirlər keçirilmişdir.

Bütün bunlarla yanaşı hələ də bəzi sahələrdə mövcud olan çatışmazlıqların tam aradan qaldırılması və iqtisadiyyatın inkişafı üçün dövlət nəzarəti sahəsində həyata keçirilən islahatların davamlı olmasını zəruri edirdi. Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi, sahibkarlığın inkişafı, yerli və xarici iş adamlarının fəaliyyətinə əsassız müdaxilələrin qarşının alınması, korrupsiya, rüşvətxorluq və digər vəzifədən su istifadə halları ilə mübarizənin genişləndirilməsi məqsədilə ölkə prezidenti tərəfindən 7 yanvar 1999-cu il tarixli "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" fərman imzalanmışdır.

Ötən müddət ərzində dövlət nəzarətinin tərkib hissəsi kimi iqtisadi nəzarət sisteminin mühüm həlqələrindən biri olan maliyyə nəzarəti sahəsində də ciddi dəyişikliklər baş vermişdir. Bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq dövlətimiz iqtisadiyyata birbaşa müdaxilə etmə siyasətindən imtina edərək dolayı vasitələrlə tənzimləmə siyasətinə üstünlük vermişdir ki, bunlardan da biri səmərəli maliyyə nəzarəti, o cümlədən vergi nəzarəti sisteminin tətbiqi olmuşdur. Bu məqsədlə vergi orqanları tərəfindən aparılan vergi yoxlamaları əsaslı təhlil olunmuş və burada mövcud boşluqların aradan qaldırılmasına dair müvafiq dəyişikliklər edilmişdir. Bu dəyişikliklər səyyar vergi yoxlamalarının dövrilik prinsipinə əsasən yox, qanun pozuntusuna yol verən, vergidən yayınan intizamsız vergi ödəyicilərində aparılmasını nəzərdə tutmuşdur.

Ümummilli lider Heydər Əliyev sahibkarların problemləri ilə müntəzəm maraqlanmış, onlarla mütəmadi görüşlər keçirmiş və iş adamlarını narahat edən məsələlərin aradan qaldırılması sahəsində ciddi tədbirlərin görülməsini tapşırmışdır. Belə görüşlərə nümunə kimi 2002-ci ilin aprel-may aylarında yerli və xarici iş adamları ilə keçirilən görüşləri göstərmək olar. Bu görüşlərdə sahibkarlığın inkişaf yolları araşdırılmış, bu inkişafa mane olan əngəllərin aradan qaldırılması üçün konkret tədbirlər müəyyənləşdirilmişdir. Sahibkarlara dövlət qayğısının ən yüksək səviyyədə bir daha təsdiqi olan bu görüşlər və onların nəticəsi kimi avqust-sentyabr aylarında imzalanmış çox mühüm fərman və sərəncamlar ölkədə sahibkarlığın inkişafında yeni mərhələnin əsasını qoymuşdur.

Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi ilə bağlı qanunvericilik aktlarında da təkmilləşmələr aparılmışdır. Belə ki, "Bəzi fəaliyyət növlərinə xüsusi razılıq verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2 sentyabr 2002-ci il tarixli fərmanı ilə ölkədə mövcud olan

lisenziyalaşdırma sistemi köklü sürətdə təkmilləşdirilmişdir. Lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 8 dəfə azaldılaraq 240-dan 30-a endirilmiş, sahibkarların lisenziya almaq mexanizmi xeyli sadələşdirilmiş, lisenziyaların müddəti uzadılmışdır.

Qeyd olunanlar ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasında azad sahibkarlığın və bazar iqtisadiyyatı prinsipləri əsasında rəqabət mühitinin formalaşdırılması sahəsində gördüyü işlərin çox cüzi hissəsini təşkil edir. Bu tədbirlər öz müsbət təsirini göstərmiş və özəl sektorun həm ümumi daxili məhsulda, həm də büdcə gəlirlərində xüsusi payı artmışdır.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş yeni iqtisadi siyasət, bazar iqtisadiyyatına keçid, iqtisadi və sosial islahatlar onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkədə ardıcıl həyata keçirilən islahatlar nəticəsində respublika həyatında bütün sahələrdə olduğu kimi sosial-iqtisadi sahədə də uğurlu nəticələr əldə edilmişdir. Ölkədə sahibkarlığın inkişafı istiqamətində də bir sıra önəmli addımlar atılmış və bu da sahibkarlıq mühitinin daha da əlverişli olmasına şərait yaratmışdır. Son illərdə Azərbaycan iqtisadiyyatının neft sektorundan asılılığının azalması, yeni istehsal müəssisələrinin istifadəyə verilməsi, işsizliyin azaldılması və sosial yönümlü müxtəlif problemlərin aradan qaldırılması sahibkarlığın inkişafı ilə əhəmiyyətli dərəcədə bağlı olmuşdur.

Azərbaycan Respublikası regionlarının 2009-2013-cu illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramında ölkədə davamlı iqtisadi inkişafın təmin edilməsi baxımından kiçik və orta sahibkarlığın dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi, ixrac potensialının artırılması, əhalinin sosial problemlərinin həlli məsələləri nəzərdə tutulmuşdur.

II Dövlət Proqramının icrasının birinci ilinin yekunları bir daha təsdiq etdi ki, ölkə rəhbərliyi tərəfindən aparılan iqtisadi inkişaf strategiyası düzgündür və Azərbaycanın daha böyük uğurlar qazanmasına imkan yaradacaqdır.

Proqramın icrasına həsr olunmuş konfransda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin verdiyi tapşırığa uyğun olaraq keçirilən zona müşavirələrinin iştirakçısı kimi bir daha şahid olduq ki, istər dövlət qurumları, istər yerli icra orqanları, istərsə də sahibkarlar proqramın icrasına əzmkarlıqla yanaşır və proqramda dəyişiklik və əlavələr barədə yerlərdən xeyli təklif və təşəbbüslər vardır.

Respublikada həyata keçirilən məqsədyönlü islahatlar ölkədə siyasi və iqtisadi sabitliyin bərqərar olmasına, sosial-iqtisadi inkişaf meyillərinin möhkəmlənməsinə imkan yaratmışdır. İctimai həyatın bütün sahələrində dönüş yaranmış, əhalinin maddi rifah halının yaxşılaşmasında nəzərəçarpacaq uğurlar qazanılmışdır. 2004-2009-cu illər ərzində ümumi daxili məhsul (ÜDM) 2.8 dəfə, Dövlət büdcəsinin gəlirləri 4.8 dəfə, orta aylıq əmək haqqı 3 dəfə, minimum pensiyanın məbləği 3.8 dəfə, minimum əmək haqqı 6.3 dəfə artmış, 33 mindən artıq yeni müəssisə, 840 mindən artıq yeni iş yeri açılmış, yoxsulluğun səviyyəsi 4.1 dəfə azalaraq 11 faizə enmişdir.

Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər) Təşkilatları Milli Konfederasiyası tərəfindən də bu işdə sahibkarlara kömək göstərilməsi məqsədilə ayrıca tədbirlər planı işlənib hazırlanmışdır və hazırda onun həyata keçirilməsi sahəsində iş aparılır.

Aprelin 14-də Azərbaycan Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2010-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası göstərdi ki, 2010-cu ildə Azərbaycan iqtisadiyyatı uğurlu inkişafını davam etdirir.

Qlobal maliyyə böhranı şəraitində belə Azərbaycan iqtisadiyyatının davamlı inkişaf etməsi, sahibkarlara kreditlərin verilməsi, özəl sektorun maraqlarının müdafiəsi respublikanın neft amillərindən asılılığını əhəmiyyətli dərəcədə azaltmışdır. Qeyri-neft sektorunda qazanılan iqtisadi uğurlar Azərbaycan iqtisadiyyatının neftdən asılılığını azaldır. Ötən il qeyri-neft sektorunda 3.2 faizlik artımın baş verməsi də ilk növbədə regionların inkişafı istiqamətində həyata keçirilən tədbirlərin nəticəsidir. Hazırda ümumi daxili məhsulun 85 faizi özəl sektorda istehsal olunur. Bu uğurların qazanılmasında Azərbaycan sahibkarlarının, eyni zamanda ASK-nın da öz töhfəsi olmuşdur.

Vaxtilə ümummilli lider Heydər Əliyev demişdir: “Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ictimai təşkilat kimi ölkədə sahibkarlığın inkişafına kömək sahəsində güclü dövlət siyasətinin gerçəkləşdirilməsində, iqtisadi islahatların hüquqi bazasının təkmilləşdirilməsində, sahibkarların və iş adamlarının hüquq və qanuni mənafelərinin qorunmasında, ölkədə əhalinin hüquq mədəniyyətinin formalaşdırılmasında və işgüzar fəaliyyətinin gücləndirilməsində fəal rol oynayır”.

Bu gün bir daha bildirmək istəyirəm ki, konfederasiyanın üzvləri daim ölkə sahibkarlarına, o cümlədən Konfederasiyaya ulu öndər tərəfindən verilən yüksək qiymətə layiq olmağa çalışır.

Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər) Təşkilatları Milli Konfederasiyası 1999-cu ildə təsis edilib, ölkədə iş adamlarını müdafiə edən və sahibkarlığın inkişafına dəstək verən ümumrespublika

birliyidir. O özündə 4000-dən çox sahibkarlıq subyektini, o cümlədən 50-yə qədər assosiasiya və birlikləri birləşdirir.

Səmərəli idarəolunmanı təşkil etmək məqsədilə Konfederasiyanın yanında yaradılmış 10 daimi komissiya sahələr üzrə, respublikanın bütün bölgələrini əhatə edən 10 regional nümayəndəlik isə regional idarəetməni təmin edir. Bu, regionlarda sahibkarlığın inkişafına dəstək verilməsi işini xeyli asanlaşdırmış, nümayəndəliklər vasitəsilə sahibkarlara göstərilən xidmətlərin və informasiya təminatının yaxşılaşdırılması və təkmilləşdirilməsinə, sahibkarlığın inkişafı istiqamətində proqramların tərtib edilməsinə və həyata keçirilməsinə şərait yaratmışdır.

2001 – ci ildən etibarən Konfederasiya sosial tərəfdaşlığın subyekti kimi Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə birlikdə ölkənin sosial – iqtisadi siyasəti və sosial – əmək münasibətləri üzrə razılaşdırılmış mövqelərini və birgə fəaliyyətlərini müəyyən edən Baş Kollektiv Saziş bağlayır. Konfederasiya öz fəaliyyətini mərkəzi və yerli icra hakimiyyəti orqanları, Milli Məclis, Məhkəmə orqanları, mətbuat və beynəlxalq təşkilatlarla əlaqəli şəkildə quraraq ölkədə sosial tərəfdaş kimi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmiş, bir sıra nüfuzlu beynəlxalq təşkilatların, Beynəlxalq İşəgötürənlər Təşkilatının, Beynəlxalq Sənayeçilər və Sahibkarlar Konqresinin, Dünya Qeyri Hökumət Təşkilatları İttifaqının üzvlüyündə təmsilçiliyi davam etdirərək ölkədə sahibkarlığın inkişafına dəstək vermişdir. 2010-2011-ci illər üçün də Baş Kollektiv Saziş imzalanmışdır.

Qeyd edim ki, Konfederasiya Baş Kollektiv Sazişin tərəfdaşı kimi sosial dialoq məsələlərinə önəm verir. Biz yalnız sahibkarlara dəstək verməklə kifayətlənmirik, müvafiq dövlət qurumları, həmkarlar ittifaqları ilə əməkdaşlıq çərçivəsində ölkədə əmək münasibətlərinin tənzimlənməsində fəal iştirak edirik.

Azərbaycan Sahibkarlar Konfederasiyası bir çox ölkələrin sahibkarlıq təşkilatları, xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiya və təşkilatları, digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edərək yerli iş adamlarına Azərbaycanda və ölkə hüdudlarından kənarda tərəfdaşlar tapmaqda və investisiya qoyulmasında kömək göstərir.

Konfederasiya Azərbaycan Respublikasını Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Biznes Şurasında müvəffəqiyyətlə təmsil edir.

Bakı şəhərində həmin təşkilatın Biznes Şurasında Konfederasiyanın sədrliyi ilə Direktorlar Şurasının iclası və “Zeytun ağacı və zeytun yağı” mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Hazırda QDİƏT ilə səmərəli əməkdaşlıq davam etdirilir.

Dünya Bankı ilə Azərbaycanda ixraca dəstək və bu işdə sahibkarların maarifləndirilməsi tədbirləri üzərində iş aparılır. Beynəlxalq Maliyyə Korporasiyası ilə biznes mühitinin araşdırılması və onun nəticələrinin sahibkarlara çatdırılması, habelə sahibkarların maarifləndirilməsi sahəsindəki birgə iş də səmərəli olmuşdur. Bu iş davam etdirilməklə yanaşı Korporasiya ilə birlikdə kiçik və orta biznesə kömək üçün internet portalın yaradılması təklifi üzərində iş aparılır.

Konfederasiya ölkədə və xaricdə təşkil olunan sərgi və biznes forumlarda sahibkarların iştirakına önəm verərək onların bu vasitələrdən yararlanmasına kömək göstərir.

Sahibkarlar üçün Avropa profili Yunanıstan Şirkətinin “Milli Konfederasiya Bürosuna və TƏS-in icrasına dəstək layihəsi” ilə birlikdə rəqabətə davamlılıq və iş yerlərinin təhlükəsizliyi mövzularında seminarlar təşkil olunmuşdur.

Sahibkarların maarifləndirilməsinin təşkili məqsədilə konfederasiya tərəfindən “ABŞ texnikasının və texnologiyasının Azərbaycanın kənd təsərrüfatında tətbiqi” mövzusunda da seminar keçirilmişdir.

Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər) Təşkilatları Milli Konfederasiyası Almaniyanın Meklenburq – Vorpemmern Texniki Peşə Təhsil İnstitutu ilə birlikdə “Sosial Dialoq Sahəsində Əməkdaşlıq” mövzusunda layihənin həyata keçirilməsinə başlamışdır.

Layihənin məqsədi Azərbaycanda sosial dialoqun inkişaf etdirilməsi, hökumət, işəgötürənlər və həmkarlar arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, üzvlərə göstərilən xidmətlərin və lobbiçilik fəaliyyətinin təkmilləşdirilməsi sahəsində qabaqcıl Avropa təcrübəsinin öyrənilməsi və tətbiq edilməsidir.

Layihə çərçivəsində Əmək qanunvericiliyi, əməyin mühafizəsi, assosiasiyaların təşkili və digər mövzular üzrə həm baş ofisdə, həm də regionlarda sahibkarlarla 6 seminar keçirilmişdir.

Bu ilin aprel ayının 12-də Avropa İttifaqı Texniki Yardım Layihəsi çərçivəsində “Əməyin Mühafizəsi və iş yerlərində təhlükəsizliyə dair” seminarda ASK-nın iştirakı olduqca əhəmiyyətli olmuşdur.

Bu ilin yanvar ayından etibarən ASK BƏT – in “Böhrandan uyğun və təhlükəsiz işə” adlı layihə sənədinə qoşulmuşdur. Layihə 2013-cü ilin dekabr ayına qədər nəzərdə tutulmuşdur. Layihənin əsas məqsədi Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrində işlə bağlı davamlı regional inkişaf və sosial ədalət, milli peşəkar

təhlükəsizliyin və səhiyyə sisteminin modernləşdirilməsi, sosial müdafiə və sosial təhlükəsizliyin təmin olunmasıdır.

Ölkə iqtisadiyyatının bütün digər sahələrində əldə olunan yüksək nəticələr və davamlı sürətli inkişafa hesablanan sosial-iqtisadi layihələrin reallaşdırılması əminliklə deməyə əsas verir ki, iqtisadi potensialımız 2010-cu və növbəti illərdə daha da güclənəcək.

Sahibkarlar Konfederasiyasının fəaliyətini yüksək qiymətləndirən ölkə Prezidenti İlham Əliyev demişdir: "Bu gün Azərbaycan Respublikası Sahibkarlar (işəqötürənlər) Təşkilatları Milli Konfederasiyası sahibkarlıq subyektlərinin maraq və mənafelərinə uyğun olaraq milli səviyyədə sosial-iqtisadi siyasəti həyata keçirən müvafiq mərkəzi İcra hakimiyyəti orqanı ilə əməkdaşlıq əlaqələrini genişləndirir, sahibkarların sahə və regional içtimai təşkilatlarının yaradılmasına, onların fəaliyyətinin əlaqələndirilməsinə, sosial tərəfdaşlıq və əməkdaşlıq praktikasının gücləndirilməsinə köməklik edir".

Heydər Əliyevin həmişəyaşar ideyalarına sadiqlik nümayiş etdirən sahibkarlarımız bu işdə səy və biliklərini əsirgəməyəcək, ölkəmizin çiçəklənməsi naminə daha böyük əzmkarlıq göstərəcəklər.

"**Azərbaycan**".-2010.-7 may.-N 98.-S.5.

# İNKİŞAFIN AZƏRBAYCAN MODELİ

**Əli ƏHMƏDOV,**
Yeni Azərbaycan Partiyasının sədr müavini – icra katibi,
Milli Məclisin deputatı

**2006-cı ilin aprel ayında Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə "Park inn" hotelində "Azərbaycan dinamik inkişaf yolunda: nəticələr və perspektivlər" mövzusunda konfrans keçirildi. Bir çox tanınmış iqtisadçıların iştirakı ilə keçirilən konfrans Azərbaycanın iqtisadi inkişaf modeli problemlərinin araşdırılmasına həsr edilmişdi. Məqsəd ölkənin heyrətamiz iqtisadi inkişafını ortaya gətirmiş model dəyişiklikləri barədə elmi söhbət aparmaq idi. Azərbaycanda yeni iqtisadi modelin formalaşması tezisi əslində ilk dəfə bu konfransda səsləndi.**

**Bu gün inkişafın Azərbaycan modeli hamılıqla qəbul olunan reallıq statusuna sahibdir. Onun artıq 2008-2009-cu illərin bütün dünyanı bürümüş maliyyə və iqtisadi böhranının ağır sınağından uğurla çıxmaq təcrübəsi də var.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2010-cu il mart ayının 12-də ölkə regionlarının sosial – iqtisadi inkişafı proqramının həyata keçirilməsinə həsr olunmuş müşavirədə qeyd etmişdir: "Uğurlarımızın təməlində ciddi islahatlar dayanır. Azərbaycanın zəngin neft-qaz potensialı vardır və biz bu potensialdan böyük səmərə ilə istifadə edirik. Bununla bərabər aparılan islahatlar bugünkü sürətli inkişafı təmin edir."**

## Heydər Əliyevin birinci hakimiyyəti dövrü: inkişafın model dəyişiklikləri potensialı

Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövrünün möhtəşəm iqtisadi inkişafı həm onun həyat və fəaliyyətini araşdıranlar, həm də ölkə tarixinin müvafiq dövrünün tədqiqatçıları tərəfindən ətraflı işıqlandırılıb. Qısa zaman kəsiyində inanılmaz iqtisadi sıçrayışın tam mənzərəsi yaradılıb. İnkişafın sürətini və böyük vüsətini əks etdirən kifayət qədər statistika, nümunə və faktlar məlumdur. Həqiqətən, dinamikanın inanılmaz parametrləri heyrət doğurmaya bilmir.

Lakin, bu dövrün uğurlarının tədqiqatçılarının əməyinə layiqincə qiymət verməklə yanaşı, əhəmiyyətli bir məqamın diqqət mərkəzinə gətirilməsini çox vacib sayıram. Məsələ bundadır ki, Heydər Əliyevin birinci hakimiyyəti dövrünün uğurları əsasən Azərbaycanın sürətli inkişafı kimi təqdim edilir. Əlbəttə bu belədir. Amma bununla yanaşı Azərbaycan həm də sürətlə dəyişir, yeniləşirdi, iqtisadiyyatının strukturu fərqli parametrlər kəsb edirdi. İnkişaf təkcə istehsalın böyüməsi hesabına deyil, daha çox yeni, daha səmərəli istehsalların yaradılması sayəsində baş verirdi. Kənd təsərrüfatı qısa zaman içərisində taxılçılıq və maldarlıqdan daha məhsuldar, daha gəlirli pambıqçılıq, üzümçülük və tərəvəzçilik əsasına keçirildi, müasir sənaye sahələri yaradıldı. Azərbaycan SSRİ-də bir sıra kənd təsərrüfatı və qabaqcıl sənaye məhsulları istehsalı üzrə mərkəzə çevrilmişdi. Onun bu sahələrdə hegemon rolu heç harada və heç kim tərəfindən inkar edilmirdi.

Demək, söhbət təkcə iqtisadiyyatın böyüməsindən deyil, həm də yeni iqtisadiyyatın yaradılmasından gedirdi. Bu isə dərin, düşünülmüş islahatlar əsasında, iqtisadi sahədə model dəyişiklikləri sayəsində mümkün ola bilərdi.

Əlbəttə, tamamilə ideologiyalaşmış sovet iqtisadiyyatı şəraitində onun ayrıca götürülmüş bir hissəsində tam fərqli yeni iqtisadi modelin yaradılmasından söhbət gedə bilməzdi. Lakin mövcud imkanlar çərçivəsində Heydər Əliyev tərəfindən həyata keçirilən islahatların sistemli mahiyyəti aydın nəzərə çarpırdı və onun model dəyişiklikləri ünsürlərinə malik olduğunu iddia etmək mümkündür.

Azərbaycanın iqtisadi strukturunun dəyişdirilməsi hər şeydən əvvəl özündə model dəyişiklikləri ünsürləri daşıyırdı. Tezisin istinad nöqtəsi qismində inkişafın resursların daha geniş miqyasda cəlb edilməsi hesabına deyil, struktur təkmilləşdirilməsi sayəsində əldə edilməsinə söykənir. Kənd təsərrüfatında pambıqçılıq və üzümçülüyün sürətli inkişafı deyilənə ən bariz nümunə ola bilər. Qabaqcıl sənaye sahələrinin yaradılması, xüsusilə neft maşınqayırması və bir sıra müasir istehsal müəssisələrinin işə salınması deyilənlərə əyani misaldır.

## Müstəqillik dövrünün Heydər Əliyev islahatları və Azərbaycanın müasir iqtisadiyyatının yaradılması

Beləliklə, Azərbaycanın müasir iqtisadiyyatının yaradılması sahəsində ilk və ciddi səylər Heydər Əliyev tərəfindən onun hakimiyyətinin birinci dövründə edilmişdir. 1993-cü ildə Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti seçilməsi təxminən 20 il əvvəl başlanılmış işlərin davam etdirilməsinə imkan açmış

oldu. Əlbəttə, müstəqillik dövrünün islahatlarını sovet dövrünün islahatları ilə bir araya qoymaq düzgün olmazdı. Lakin bunların arasında məntiqi əlaqənin mövcudluğu da inkar edilə bilməz.

Müasir iqtisadiyyatın yaradılması məqsədilə Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyada birincilik palması, heç şübhəsiz, yeni iqtisadi münasibətlərin təməlinin qurulmasına aiddir.

Bazar iqtisadiyyatına keçid

Azərbaycanda müasir ictimai münasibətlər sisteminin yaradılması prosesi bir sıra mühüm xüsusiyyətlərə malik olduğundan bazar iqtisadiyyatının formalaşmasının da bəzi fərqli cəhətləri mövcuddur. Ən ümumi şəkildə Ermənistanın Azərbaycana ərazi iddiaları səbəbindən başlanan müharibə, ictimai, o cümlədən iqtisadi münasibətlərin ideoloji sistemin sərt nəzarətindən tədricən azad olması, mülkiyyət formalarının dəyişdirilməsinin ziddiyyətləri sözügedən prosesin fərqli cəhətlərini şərtləndirirdi.

Bazar iqtisadiyyatına keçid üçün seçilmiş yol nəticə etibarı ilə ölkənin iqtisadi modelinin əsaslarının yaradılmasında həlledici rol oynamışdır. Qeyd edilməlidir ki, Heydər Əliyevin müəyyənləşdirdiyi bu yolun nüvəsini əsaslı islahatlar təşkil edirdi.

Heydər Əliyevin bazar iqtisadiyyatına keçid konsepsiyasının baş xəttini mülkiyyətin özəlləşdirilməsi, iqtisadiyyatın dövlətin inhisarından azad edilməsi, şəxsi mülkiyyət hüququnun formalaşması əsasında azad sahibkarlığın yaradılması təşkil edir.

Heydər Əliyev iqtisadi siyasətinin diqqəti cəlb edən digər mühüm xüsusiyyəti azad bazar münasibətlərinin formalaşdırılması mərhələləri hesab edilə bilər. Yeni iqtisadi sistemin yaradılmasının xidmət sahələrinin, ticarətin, tikintinin, nəqliyyatın bir sıra sahələrinin özəlləşdirilməsindən başlaması bazar münasibətləri sisteminə yumşaq keçidi təmin etmiş oldu. Əldə edilən təcrübə digər sahələrin idarə edilməsində bazar iqtisadiyyatı üsullarından istifadə edilməsi imkanlarını əhəmiyyətli dərəcədə genişləndirdi.

**Aqrar islahatlar**

Azərbaycanın yeni iqtisadi modelinin yaradılmasında aqrar islahatların aparılmasının müstəsna rolu danılmazdır. Bu, əsas etibarı ilə bir yandan ölkə iqtisadiyyatının strukturu ilə bağlıdırsa, digər tərəfdən əhalinin yerləşməsi ilə şərtlənir. Azərbaycanda XX əsrin 70-80-ci illərində Heydər Əliyevin rəhbərliyi dövründə inkişaf etmiş sənaye sahələrinin yaradılmasına baxmayaraq, iqtisadiyyatda kənd təsərrüfatı sektorunun xüsusi çəkisi yüksək olmaqda davam edirdi. Kənd təsərrüfatı işçi qüvvəsinin cəlb edilməsinin ən geniş sahələrindən biri kimi vacib rol oynayırdı. Digər tərəfdən, ölkə əhalisinin təxminən yarısı kənd yerlərində yaşayırdı. Əhalinin təxminən 40 faizdən çoxunun yaşadığı və işlədiyi kəndi bazar iqtisadi münasibətlərinə cəlb etmədən yeni iqtisadiyyatın yaradılması təmin edilə bilməzdi. Buna görə Heydər Əliyev aqrar islahatların aparılmasına xüsusi önəm verirdi. Daha doğrusu, kənddə yeni iqtisadi münasibətlər sisteminin yaradılması ulu öndər Heydər Əliyevin düşüncəsinə görə, aqrar islahat formasında həyata keçirilməli idi. Qeyd edilməlidir ki, torpaqların kollektiv, əslində dövlət təsərrüfatında birləşməsinə əsaslanan iqtisadi sistemin formalaşdırdığı stereotiplər fonunda belə bir ideyanın irəli sürülməsi və onun həyata keçirilməsi cəhdləri o zaman kifayət qədər riskli və cəsarətli addım idi. Çünki, torpaqların kəndlilərə paylanmasını nəzərdə tutan Heydər Əliyev aqrar siyasəti təkcə kəndin kollektiv təsərrüfat sistemini dəyişdirmirdi, əslində bütün təsərrüfat ukladını, kəndlinin həyat tərzini kökündən yeni qaydalar üzərinə keçirilməsinə əsaslanırdı. İlk mərhələdə iri kollektiv və dövlət təsərrüfatlarının əvəzində xırda fərdi təsərrüfatların səmərəliliyinin və həyat qabiliyyətinin təmin edilməsi, unudulmuş şəxsi təsərrüfatçılıq psixologiyasının yaradılması kimi çətin vəzifələr qarşıda dayanırdı. Bu isə, təbii olaraq, birbaşa ərzaq təhlükəsizliyi probleminə gedib çıxırdı. Digər ciddi problem kənddə işsizliyin kəskin surətdə artması ilə bağlı idi. Torpaqlar pay bölgüsü əsasında bölünə bilər, lakin onu əkib-becərmək üçün texnikanın yaranacaq bütün fərdi təsərrüfatlar arasında bölünməsi mümkün deyildi. Deməli, müəyyən müddət ərzində kəndliyə verilmiş torpaqların əhəmiyyətli hissəsinin işlənməsi təmin edilə bilməyəcəkdi.

Bütün bunlar həyata keçiriləcək aqrar islahatların riskləri idi. Lakin islahatların kökündə dayanan kənddə ədalətin bərpa olunması, kəndlidə zəruri sahibkarlıq hisslərinin formalaşdırılması prinsipləri və gələcək perspektivlərə inam cəsarətli addımların atılmasını qaçılmaz edirdi. Bu gün Azərbaycan kəndinin simasının kökündən dəyişməsi, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində daxili imkanların rolunun getdikcə artması Heydər Əliyevin aqrar islahatlarının düzgünlüyünü sübuta yetirir.

**Xarici investisiyaların cəlb edilməsi və ölkənin təbii sərvətlərindən istifadə edilməsi**

Müstəqilliyin ilk illərində Azərbaycanın məlum səbəblərlə əlaqədar üzləşdiyi maliyyə sıxıntıları iqtisadiyyatın struktur dəyişikliklərini həyata keçirməyə, zəngin neft və qaz ehtiyatlarını işləməyə imkan vermədiyindən ölkəyə xarici sərmayələrin cəlb edilməsi çıxış yollarından biri kimi başa düşülürdü.

Heydər Əliyevin inkişaf strategiyasının tərkib hissəsi olan xarici investisiyaların cəlb edilməsi siyasəti çoxvektorluğu ilə seçilir. Əlbəttə, ilk olaraq Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarının işlənməsi kimi strateji məqsəd güdülürdü. Daxili imkanların məhdudluğu şəraitində xarici sərmayənin cəlb edilməsi mahiyyət

etibarilə ölkənin inkişaf maraqları ilə xarici kapitalın maraqlarının əlaqələndirilməsinə istinad edən iqtisadi kompromis xarakteri daşıyırdı. Bir tərəfdə Azərbaycanın zəngin neft və qaz ehtiyatlarının işlənməsi, digər tərəfdə isə ayrı-ayrı beynəlxalq şirkətlərin biznes maraqları dayanırdı.

Yeni inkişaf modelinin formalaşması nöqteyi-nəzərindən xarici kapitalın cəlb edilməsi bir sıra ölkələrin təcrübəsində sınanmış üsullardan sayılır. Azərbaycanın timsalında bu, maraqların uzlaşması və tarazlaşması zəminində tərəflərdən biri Azərbaycan olan transmilli korporasiyanın yaradılması formasında meydana gəlmiş oldu. Artıq Azərbaycanın milli iqtisadiyyatında onu qlobal iqtisadiyyata sıx bağlayan əhəmiyyətli həlqə meydana gəlmişdi. Bunun sayəsində ölkənin zəngin karbohidrogen ehtiyatları böyük maliyyə vəsaitlərinə çevrilməklə sonrakı iqtisadi və sosial inkişafın fundamental təməli rolunu oynamağa başladı.

Xarici sərmayə iqtisadiyyatın dirçəlişi üçün ilkin kapital rolunu oynamaqla yanaşı daxili iqtisadi struktur islahatlarının aparılmasına, yeni istehsal münasibətlərinin və sahələrinin meydana gəlməsinə, inteqrasiya meyillərinin genişlənməsinə və güclənməsinə, müasir idarəetmə metodlarının qərarlaşmasına təkan verdi.

Diqqəti çəkən məqam ondan ibarətdir ki, ölkənin neft və qaz sektoruna cəlb edilən böyük xarici kapital Azərbaycanda iqtisadi cəlbedicilik mühitinin formalaşmasında müstəsna rol oynamaqla, əslində iqtisadi inkişaf modelinin əhəmiyyətli ünsürlərindən birinin qərarlaşmasına etibarlı təminat verdi. Azərbaycanın dünyada etibarlı tərəfdaş kimi qəbul edilməsi, ölkə iqtisadiyyatının xarici sərmayələr üçün cəlbediciliyi, əlverişli investisiya mühitinin təminatı baxımından Azərbaycanın yüksək reytinqə malik olması onun iqtisadi modelinin fərqləndirici xüsusiyyətləri və tərkib hissələridir.

**Bazar münasibətləri və sosial ədalət prinsiplərinin əlaqələndirilməsi əsasında sosial bazar elementlərinin formalaşması**

Sosializmdən kapitalizmə keçidin çoxsaylı çətinlikləri içərisində bazar münasibətləri ilə sosial ədalət prinsiplərinin əlaqələndirilməsi xüsusi qeyd olunmağa layiqdir. Klassik mənada qavranılan hər iki münasibətlər sisteminin daxili antaqonizmi ilk növbədə onların uzlaşmasını qeyri-mümkün edir. Hər kəsin əməyinə və bacarığına uyğun həyat keyfiyyəti vəd edən kapitalizmdən fərqli olaraq "hər kəsə tələbatına görə" bölgü prinsipini bəyan etmiş sosializmin dəyərləri sisteminin barışığının təmin edilməsi, təbii olaraq, həlli müşkül olan məsələ kimi qavranılır. Lakin iki sosial-iqtisadi sistemin yarışında uğursuzluğa düçar olmuş sosializmin yeni iqtisadi sistemlə əvəzlənməsi tarixi zərurət olduğu kimi, "hər kəsə tələbatına görə" prinsipi ilə insanların beyinlərini doldurmuş sosializmin sosial ədalət çağırışlarının birdən-birə unudulması da mütləq şəkildə sosial narazılıq katalizatoruna çevrilmək perspektivi vəd edirdi. Buna görə bu iki antaqonist sistemin təmas nöqtələrinin axtarılıb tapılması tələb olunurdu.

Qeyd olunmalıdır ki, müstəqilliyin ilk illərini müşayiət edən iqtisadi və sosial sıxıntılar 70 il ərzində insanların həyatlarından daha çox beyinlərinə daxil olmuş sosial ədalət prinsiplərini yenidən müəyyən dərəcədə populyarlaşdıra bilmişdi. Həm də artan işsizlik, yoxsulluq və digər sosial problemlər sosial ədalət prinsipinə dövlətin diqqətinin artırılmasını qaçılmaz edirdi. Müvəqqəti olsa da müstəqilliyin ilk illərində xeyli sosial problemlərlə üz-üzə qalmış insanların ehtiyaclarının bir qisminin dövlətin üzərinə götürülməsindən savayı çıxış yolu qalmırdı.

Nəhayət, bazar münasibətləri ilə sosial ədalət prinsiplərinin əlaqələndirilməsi Azərbaycanın formalaşdırılan Heydər Əliyev modelinin humanist mahiyyətindən irəli gəlirdi.

Həllini gözləyən növbəti məsələ sözügedən iki bir-birinə əks sistemin uğurlu, həyat qabiliyyətli sintezinin yaradılmasından ibarət idi. Elə bir sintez yaradılmalı idi ki, həm inkişafa təminat verən yeni iqtisadi sistem qərarlaşa bilsin, həm də həyata keçirilən əsaslı islahatlar sosial ədalətsizlikdə maddiləşməsin.

Nəticədə Heydər Əliyevin uzaqgörənliyi və müdrikliyi azad bazar münasibətləri ilə sosial ədalət prinsiplərinin elə səmərəli sintezinin yaradılmasına gətirib çıxartdı ki, bunu sosial bazar modeli adlandırmaq mümkündür. Bir tərəfdə azad sahibkarlıq, iqtisadi rəqabət, şəxsi mülkiyyət münasibətləri və onların yaratdığı yeni dəyərlər sistemi, digər tərəfdə isə əhalinin sosial qayğıları və ehtiyaclarının tam bir dəstinin dövlətin üzərinə qoyulması. Bu gün insanın bütün qabiliyyətlərinin aşkar edilməsinə və həvəsləndirilməsinə meydan açan ictimai münasibətlər qocalığa görə pensiya, sosial pensiya təminatı, pulsuz səhiyyə və təhsil sistemi və sair sosial ədalət prinsipi elementləri ilə birgə fəaliyyət göstərir.

**Yeni inkişaf modeli əməli fəaliyyətdə**

**İnkişafın yüksək dinamikası**

Azərbaycanın son illərdə müşahidə olunan yüksək inkişaf dinamikası onun formalaşan modelinin aprobasiyası sayıla bilər. 2004-cü ildən başlayaraq iqtisadiyyatda əldə olunan yüksək artımın dalbadal təkrarlanması həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda Azərbaycan modeli haqqında iddiaların meydana çıxması ilə nəticələndi. 2004-cü ildə iqtisadi inkişafın təxminən 25 faizlik nəticəsinin ardınca 2005-ci

ildə təxminən 34 faizlik artım bu iddiaların ciddi əsaslara söykəndiyindən xəbəb verirdi. Eyni göstəricilərin növbəti illərdə təkrarlanması inkişafın yeni bir möcüzəsinin – Azərbaycan modelinin qəti şəkildə qərarlaşdığını sübuta yetirdi.

İnkişafın yüksək dinamikası, bir yandan Azərbaycan modelinin təzahür forması, digər tərəfdən isə təsdiqləyici amili kimi çıxış etməkdədir.

Təxminən 10 il ərzində Azərbaycan iqtisadiyyatının 3 dəfə artması, dövlət büdcəsinin gəlirlərinin 10 dəfədən çox yüksəlməsi həyata keçirilən iqtisadi və infrastruktur islahatları nəticəsində yaranan yeni iqtisadi münasibətlərin səmərəli fəaliyyətinin inkaredilməz reallığıdır. Artıq özünü təsdiqləmiş Azərbaycan modelinin daha bir sınaq imtahanı 2008-2009-cu illərin ağır, dünyanın əksər ölkələrini bürümüş maliyyə və iqtisadi böhranı hesab edilir. Ən böyük iqtisadiyyata malik ölkələri lərzəyə gətirən qlobal iqtisadi böhranın ən az təsir göstərə bildiyi ölkələrdən birinin məhz Azərbaycan olduğu heç kimdə şübhə doğurmur. Ölkəmizin iqtisadiyyatının qlobal böhranın həmlələrinə dayanaqlı müqaviməti dünyanın əksər iqtisadi və maliyyə mərkəzlərinin hesabatlarında özünün əksini tapıb.

**Regionların inkişafının tarazlaşdırılması**

Azərbaycan modelinin mühüm xüsusiyyətləri arasında regional inkişafın sürətləndirilməsi xətti ayrıca əhəmiyyət kəsb etməkdədir. Belə bir xəttin yeridilməsi zərurəti ölkə iqtisadiyyatında XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərinə təsadüf edən tənəzzül prosesləri nəticəsində yaranan inkişafın qeyri-bərabərliyindən qaynaqlanır. İnkişaf etmiş Bakı ilə geridə qalmış regionlar arasında disbalans iqtisadiyyatda kifayət qədər nataraz və səmərəsiz strukturun yaranmasına səbəb olmuşdu. Bu isə öz növbəsində ölkə iqtisadiyyatının inkişafı qarşısında ən böyük maneələrdən idi. Qeyri-tarazlıq inkişafın ahəngdar gedişini əngəllədiyindən mərkəzlə əyalətlər arasında fərqlər də getdikcə artmaqda davam edirdi.

Digər tərəfdən isə, ayrı-ayrı bölgələr arasında böyük fərqlər ümumilikdə ölkə iqtisadiyyatının vahid balansında əks olunaraq onun kəmiyyət göstəricilərinə mənfi təsirini göstərirdi. Üstəgəl, zəif iqtisadi göstəricilər regionların sosial ehtiyaclarının öz imkanları hesabına ödənilməsini qeyri-mümkün etdiyindən, əksər regionların mərkəzi büdcədən dotasiyalar hesabına yaşamasını qaçılmaz edirdi. Nəticədə, inkişafa sərf edilməli olan vəsaitlər məcburi olaraq regionların sosial ehtiyaclarının ödənilməsi məqsədlərinə ünvanlanırdı.

Vəziyyətin köklü surətdə dəyişdirilməsi 2004-cü ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair dövlət proqramının qəbul edilməsi və ardıcıl surətdə həyata keçirilməsi sayəsində mümkün oldu. Qəbul edilən proqramın həyata keçirilməsi sayəsində baş verən dəyişikliklər ümumiləşdirilmiş şəkildə aşağıdakılarda öz ifadəsini tapdı:

- iqtisadiyyatın strukturunda disbalans tədricən aradan qaldırıldı;
- yüz minlərlə yeni iş yerləri açıldı, iş qüvvəsindən səmərəli istifadə əmsalı yüksəldi, işsizliyin aradan qaldırılmasına böyük dəstək verildi;
- regionlarda iqtisadi fəallıq əhəmiyyətli dərəcədə yüksəldi;
- ölkə iqtisadiyyatının ümumi inkişafında regionların xüsusi çəkisi nəzərə çarpan dərəcədə yüksəldi;
- regionların infrastrukturu təkmilləşdirildi ki, bu da öz növbəsində artan iqtisadi amil effekti yaratmış oldu;
- regionların sosial siması dəyişdi və beləliklə də ümumi iqtisadi fəallığa əhəmiyyətli təsir göstərmək gücünə malik olan digər amil – əhalinin sağlam, yüksək ovqatı formalaşdı.

Bu gün Azərbaycanın davamlı iqtisadi yüksəlişində regionların daim artan rolu hamı tərəfindən etiraf olunur və yeni inkişaf modelinin vacib tərkib hissəsi kimi qiymətləndirilir.

**Modernləşmə strategiyası**

Müasirləşmə Azərbaycanın hazırkı inkişafının mahiyyətini ifadə edən əsas xüsusiyyətlərdən biri kimi qiymətləndirilir. Azərbaycan modeli dedikdə hər şeydən əvvəl iqtisadiyyatın və həyatın digər sahələrinin modernləşməsi prosesi və onun yaratdığı reallıqlar başa düşülür.

Azərbaycanın inkişaf modeli kontekstində modernləşmə onun fundamental əsaslarından biri, bəlkə də ən əhəmiyyətlisi qismində qəbul olunur. Ölkənin mövcud reallıqları və gələcək perspektivləri təkzibedilməz şəkildə sübuta yetirir ki, modernləşmə Azərbaycan timsalında möhtəşəm inkişaf resursuna sahibdir. Məhz həmin inkişaf resursunun hərəkətə gətirilməsi Azərbaycanın son illərdə sürətli tərəqqisinin təmin edilməsində birbaşa iştirak etməkdədir.

Azərbaycan reallıqlarında modernləşmə əhatəli məzmunu ilə fərqlənir və fikrimcə, aşağıdakı struktura sahibdir:

- iqtisadi modernləşmə;
- infrastrukturun yeniləşməsi;
- məskunlaşma və həyatın təşkili sahəsində modernləşmə.

Azərbaycanın inkişaf modelində iqtisadi modernləşmə istehsalın artım templərinin əsas təminatçısı məqsədlərini güdür. Milli iqtisadiyyatın struktur dəyişikliklərindən tutmuş yeni texnologiyaların tətbiqi, istehsal mədəniyyətinin artırılması, dünya iqtisadi sisteminə qovuşmağa imkan yaradan yeni sahələrin və istehsalların meydana gəlməsinə qədər geniş spektri əhatə edən iqtisadi modernləşmə Azərbaycanın bazar iqtisadiyyatının əsaslarının bərqərar edilməsi prosesinin ümumi mənzərəsini tam dolğunluğu ilə əks etdirir.

Müasirləşmə strategiyasının uğurlu taleyində ölkədə həyata keçirilən infrastruktur siyasətinin xüsusi çəkisi nəzərə çarpan dərəcədə yüksəkdir. Hər şeydən əvvəl bu, iqtisadi mühitin yaxşılaşdırılmasında, istehsal şəraitinin təkmilləşdirilməsində ifadə olunur. Yollar və körpülər şəbəkəsinin genişləndirilməsi və yaxşılaşdırılması, digər infrastruktur obyektlərinin tikilməsi nəticə etibarı ilə ölkədə iqtisadi artıma birbaşa təsir edir, iqtisadi amil rolunda çıxış edir.

İnfrastruktur siyasəti habelə müəyyən mənada sosialyönümlü siyasət formasında özünü büruzə verir. Xüsusilə də, böyük neft gəlirlərinin ədalətli bölgüsündə sözügedən siyasətin xüsusi rolu ayrıca qeyd oluna bilər. 2008-2009-cu illərin qlobal maliyyə və iqtisadi böhranı zamanı işsizliyin artmasının, yoxsulluğun yüksəlməsinin qarşısının alınmasında genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsinin faydası misal gətirilə bilər.

Azərbaycanın modernləşmə xəttinin mahiyyətini və mənzərəsini ölkənin simasının bütünlükdə dəyişdirilməsinə yönəldən əsaslı yenidənqurma və abadlıq işləri daha sintetik şəkildə əks etdirir. Bu bir yandan həyatın yeni standartlarının yaradılması məqsədləri güdürsə, digər tərəfdən istehsal mədəniyyətini artırır. Onu da xüsusi olaraq vurğulamaq yerinə düşər ki, Azərbaycanın paytaxtdan tutmuş regionlara qədər bütünlükdə dəyişən görkəmi ölkənin simasını müasirləşdirməklə yanaşı, həm də əhalinin ictimai ovqatının yeni obrazını formalaşdırır, müasir dünyagörüşünün qərarlaşmasına bilavasitə təsir edir, bütünlüklə yeni Azərbaycan modelinin bitkin məzmununun meydana gəlməsinə xeyli təsir göstərir.

**İnsan faktoruna istinad**

Azərbaycanın müasir inkişafı bir çox amillərin yaxından iştirakı sayəsində təmin edilir. Ölkənin iqtisadi potensialı, geniş işçi qüvvəsi, inkişaf etmiş infrastrukturu, xüsusilə də zəngin təbii ehtiyatları son illərin yüksək iqtisadi dinamikasını şərtləndirmişdir. Heydər Əliyevin böyük uzaqgörənliyinin nəticəsi olan neft strategiyası, Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxardılması şahidi olduğumuz iqtisadi yüksəlişin təmin edilməsinə müstəsna töhfələr verib. Bundan sonra da uzun illər Azərbaycana məxsus neft və təbii qaz ehtiyatları onun davamlı tərəqqisini təmin etmək iqtidarındadır. Ölkənin təbii ehtiyatları belə bir iddianı irəli sürməyə tam əsas verir.

Bununla yanaşı, birmənalı şəkildə vurğulanmalıdır ki, Azərbaycanın inkişaf modeli yalnız təbii sərvətlər amilinə arxalanmır. Hazırda inkişafda sözügedən amilin xüsusi çəkisinin xeyli çox olmasına baxmayaraq, əslində həmin resurslar yeni iqtisadi potensialın yaradılması məqsədlərinə sərf olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, bu gün qarşıya iqtisadiyyatda dominant rol oynayan neft kapitalının insan kapitalına çevrilməsi kimi mühüm vəzifə qoyulmuşdur.

Deyilən taktikanın seçilməsi səbəbləri aydın və sadədir. Əvvəla, nə qədər zəngin olsa da, istənilən təbii sərvət tükənən resursdur və bu baxımdan inkişaf modelinin yalnız onun üzərinə qoyulması istər-istəməz inkişafı məhdud çərçivəyə alır.

Digər tərəfdən, qlobal iqtisadiyyatın gündən-günə ağırlaşan rəqabət mübarizəsi şəraitində müasir texnologiyaların tətbiqinə əsaslanan milli iqtisadiyyat strukturu yaradılmadan:

a) müasir beynəlxalq iqtisadi sistemə tam inteqrasiya etmək;

b) rəqabət qabiliyyətli iqtisadiyyat yaratmaq;

c) uzunmüddətli iqtisadi yüksəlişi təmin etmək mümkün deyil.

Bununla əlaqədar olaraq Azərbaycan modeli dedikdə daha çox yüksək texnologiyalı iqtisadiyyatın yaradılması, informasiya və kommunikasiya texnologiyalarının sahələrinin inkişaf etdirilməsi, iqtisadiyyatın intellektual çəkisinin artırılması başa düşülür. Elmin və təhsilin inkişafına dövlətin xüsusi diqqəti, təhsil almaq üçün dövlət hesabına dünyanın aparıcı universitetlərinə çoxlu sayda tələbələrin göndərilməsi, yeni texnologiya sistemlərinin yaradılmasının dövlət tərəfindən həvəsləndirilməsi və s. bu qəbildən olan tədbirlər Azərbaycanın inkişaf modelində insan amilinin həlledici yer tutduğuna nümunədir.

2010-cu il mart ayının 12-də keçirilən müşavirədə Azərbaycanın iqtisadi inkişafının perspektivləri haqqında düşüncələrini bölüşərkən Prezident İlham Əliyev demişdir: “Biz irəliyə baxmalıyıq. 50 ildən sonra nə olacaq? Azərbaycanın enerji mənbələri tükənməyə başlayandan sonra nə edəcəyik? Biz bu gün bu vacib infrastrukturu yaratmaqla, biznes mühitinin yaxşılaşdırılması istiqamətində atılan addımlarla, investisiyaları cəlb etməklə inkişafın davamlılığını təmin edəcəyik.”

Beləliklə, Azərbaycanın inkişaf modeli qərarlaşıb və fəaliyyətdədir. Hədəflər isə seçilib. Qarşıda qüdrətli, zəngin, güclü Azərbaycan yaradılması vəzifəsi dayanır.

“**Azərbayca**n“.-2010.-8 may.-N 99.-S.4.

# AZƏRBAYCANIN MÜASİR GÖMRÜK SİSTEMİNİN FORMALAŞMASI ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ADI VƏ FƏALİYYƏTİ İLƏ BAĞLIDIR

**Aydın ƏLİYEV,**
Dövlət Gömrük Komitəsinin sədri,
gömrük xidməti general-leytenantı

**Ölkənin iqtisadi təhlükəsizliyi və daxili bazarının qorunmasında, onun beynəlxalq iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsində müstəsna rol oynayan Azərbaycanın gömrük sistemi xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən edilən siyasətə uyğun olaraq formalaşmış və inkişaf edərək dövlət müstəqilliyinin əsas atributlarından biri olan çoxfunksiyalı kompleksə çevrilmişdir.**

XX əsrin sonlarında Azərbaycanın öz müstəqilliyini bərpa etməsi, cəmiyyətin bütün sahələrində aparılan demokratik, hüquqi və iqtisadi islahatlar respublikamızın inkişafına təkan verdi, beynəlxalq aləmdə nüfuzunun artmasına səbəb oldu. İqtisadi inkişaf və tərəqqi baxımından çox böyük nailiyyətlər əldə edən Azərbaycan dünya birliyində öz layiqli yerini tutdu. Bununla belə, Azərbaycanda dövlət quruculuğu prosesi sıra obyektiv və subyektiv səbəblərdən çox çətin və mürəkkəb yol keçdi. 1991-1993-cü illərdə ölkənin ictimai-siyasi həyatında hökm sürən qeyri-sabit vəziyyətə ümummilli lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı ilə son qoyuldu. Məhz onun rəhbərliyi altında dövlət quruculuğunun bütün sahələrində iqtisadi inkişafa və sosial-siyasi gərginliyin aradan qaldırılmasına xidmət edən genişmiqyaslı islahatlar həyata keçirildi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlət quruculuğu sahəsində təxirəsalınmaz vəzifələrdən biri də ölkənin iqtisadi maraqlarının qorunması, səmərəli xarici-iqtisadi fəaliyyət və idxal-ixrac əməliyyatlarına dövlət nəzarət sisteminin yaradılması, sərhədlərin iqtisadi təhlükəsizliyinin təmin edilməsi idi. Qısa zaman kəsiyində milli gömrük xidmətinin yaradılması və formalaşdırılması bütün kəskinliyi ilə qarşıda dururdu. Azərbaycanın dövlət suverenliyinin mühüm atributlarından biri olan Dövlət Gömrük Komitəsi 1992-ci il yanvarın 30-da yaradıldı. Lakin o zaman mürəkkəb ictimai-siyasi vəziyyət gömrük orqanlarının formalaşmasına imkan vermədi. Həmin tarixi şəraitdə Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyevin 24 fevral 1992-ci il tarixli qərarı ilə Naxçıvan MR Dövlət Gömrük Komitəsinin yaradılması və əsl milli gömrük xidmətinin formalaşdırılması sahəsində görülən tədbirlər isə nəinki Naxçıvanı düşdüyü blokada vəziyyətindən çıxarmaq və yerli iqtisadiyyatı möhkəmlətmək üçün şərait yaratdı, həm də bütün Azərbaycanda siyasi münasibətlərə əhəmiyyətli təsir göstərmiş oldu.

Məlum olduğu kimi, 1991-1992-ci illərdə və 1993-cü ilin birinci yarısında Azərbaycanda hökm sürmüş şəraitdə zəruri hüquqi-normativ bazaya malik normal gömrük sisteminin formalaşdırılması mümkün ola bilməzdi. Həmin dövrdə gömrük orqanları qarşısında duran vəzifələr, demək olar ki, icra olunmur, neqativ hallar baş alıb gedirdi. Gömrük sistemindəki bu vəziyyət beynəlxalq aləmdə kövrək addımlarını atan müstəqil Azərbaycan dövlətinin siyasi nüfuzuna da xələl gətirirdi. Belə ki, iqtisadiyyatın idarə edilməsinin inzibati-amirlik metodlarına və keçmiş İttifaq bazarının vahidliyinə əsaslanan gömrük və onun bazar iqtisadiyyatına keçid şəraitinə uyğunlaşdırılmayan hüquqi-normativ bazası günün tələblərinə cavab vermirdi. Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə keçmiş SSRİ-nin Gömrük Məcəlləsi və Gömrük Tarifi haqqında qanunları respublika ərazisində qüvvəsini saxlayırdı.

1993-cü ilin ikinci yarısından başlayaraq Azərbaycanın ictimai-siyasi həyatında müsbət dəyişikliklər baş verdi, siyasi və iqtisadi sahələrdə ardıcıl şəkildə islahatlar aparıldı, dövlətin bütün ölkələrlə bərabərhüquqlu və qarşılıqlı iqtisadi əməkdaşlığını nəzərdə tutan vahid iqtisadi strategiya formalaşdırıldı. Azərbaycan müstəqillik əldə etdikdən sonra qazandığı ən böyük nailiyyətlərdən biri də Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" oldu. "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında sazişin imzalanması, beynəlxalq neft müqaviləsi çərçivəsində görülən işlər ölkəyə yeni, mütərəqqi texnologiyaların gətirilməsinə və bütün bunlarla yanaşı, nəqliyyat və xidmət sahələrinin inkişafına, peşəkar milli kadrların hazırlanmasına və minlərlə iş yerinin açılmasına şərait yaratdı. Eyni zamanda, həyata keçirilən fəal xarici siyasət beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun yüksəlməsinə, bir çox dövlətlərlə yüksək səviyyədə əlaqələrin qurulmasına, ölkənin siyasi imicinin dəyişməsinə, onun xarici-iqtisadi əlaqələrinin genişlənməsinə və ölkəyə güclü investisiya axınına səbəb olmuşdur. Avropa dövlətləri və ABŞ-la bərabərhüquqlu və qarşılıqlı faydalı, hərtərəfli münasibətlərinin yaradılması sahəsində uğurları isə xüsusi qeyd edilməlidir.

Beləliklə, yeni tarixi şərait ölkəyə investisiya təyinatlı malların idxalının artımı, xarici-iqtisadi fəaliyyəti tənzimləyə biləcək çevik gömrük siyasətinin həyata keçirilməsi, eləcə də bazar iqtisadiyyatına keçid şəraitində sahibkarlığa sağlam rəqabət şəraiti yaradılmasını tələb edirdi. Azərbaycan gömrük təşkilatının işinin yenidən

qurulması üçün keçmiş SSRİ-dən miras qalmış hüquqi-normativ bazanın, texniki resursların və kadr potensialının yeniləşdirilməsi tələb olunurdu.

1995-ci il yanvarın 9-da Azərbaycan Prezidentinin yanında gömrük işinin təşkilinə həsr olunmuş müşavirə respublikada gömrük xidmətinin yenidən qurulmasının, inkişafının əsas istiqamətləri və prinsiplərini müəyyən etdi. Heydər Əliyev həmin müşavirədə Dövlət Gömrük Komitəsinin fəaliyyətini təhlil edərkən demişdir: "Gömrük orqanları Azərbaycan öz müstəqilliyini əldə edəndən sonra yaranmışdır. Onlar fəaliyyət göstərir, ancaq mən ümumən deyə bilərəm ki, müstəqillik dövründə əldə etdiyimiz nailiyyətlərlə yanaşı, böyük nöqsanlarımız, çatışmazlıqlar da var. Bunların başlıcası iqtisadiyyatın belə vəziyyətə düşməsi, xarici ölkələrlə iqtisadi əlaqələrin sağlam, düzgün əsasda qurulmamasıdır. Bu çatışmazlıqların mövcud olmasının əsas səbəblərindən biri gömrük orqanlarının işindəki nöqsanlardır". Gömrük sisteminin qurulmasında, kadr siyasətində, dövlət büdcəsi qarşısında öhdəliklərin yerinə yetirilməsində ciddi nöqsanlara yol vermiş və strateji əhəmiyyətli malların qaçaqmalçılıq yolu ilə ölkədən çıxarılmasına şərait yaratmış Gömrük Komitəsi rəhbərliyini tutduğu vəzifədən uzaqlaşdırmaqda dövlət başçısı Heydər Əliyevin əsas məqsədi gömrük orqanlarının işinin kökündən dəyişdirilməsi, sağlam əsaslar üzərində qurulması idi.

Gömrük xidmətinin ölkə iqtisadiyyatının inkişafında rolunu yüksək qiymətləndirən Heydər Əliyev bu orqanın fəaliyyətini daim diqqətdə saxlayırdı. 1995-ci ilin əvvəllərindən etibarən Dövlət Gömrük Komitəsi yeni rəhbərliyinin az müddətdə kadr potensialını yeniləşdirməsi, gömrük nəzarətinin səmərəsinin və xidməti intizamın gücləndirilməsi, struktur dəyişikliklərinin keçirilməsi, gömrük buraxılış məntəqələrinin texniki resurslarının möhkəmləndirilməsi və yeni gömrük postlarının yaradılması, avtomatlaşdırılmış idarəetmə sisteminə keçid, tarif-tənzimləmə sisteminin təkmilləşdirilməsi və digər tədbirlər nəticəsində ölkədə gömrük işinin yenidən qurulmasına başlanıldı.

Ümummilli lider Heydər Əliyev iqtisadi məsələlərə həsr edilmiş müşavirə və yığıncaqlarda, xüsusilə, 1997-ci il yanvarın 30-da Dövlət Gömrük Komitəsinin yaradılmasının 5-ci ildönümünə və gömrük əməkdaşlarının peşə bayramı gününə həsr edilmiş təntənəli yığıncaqdakı nitqində gömrük orqanlarının fəaliyyətini son dərəcə dəqiqliklə təhlil edərək, bu sistemdə yaranmış problemlərin həlli yolunun tələbkarlıq və nizam-intizam, peşəkarlıq mühitinin formalaşdırılması, kadrlarla işin yenidən qurulması, hər bir gömrük işçisinin öz dövlətinə sadiqlik prinsipinin əsas meyara çevrilməsi sayəsində mümkünlüyünü göstərmişdir. "Hesab edirəm ki, sizin qarşınızda, Azərbaycan gömrük təşkilatının, Gömrük Komitəsinin qarşısında duran vəzifələr çox böyükdür və siz bu vəzifələri layiqincə yerinə yetirməyə özünüzü səfərbər etməlisiniz. Gömrük xidmətinin vəzifəsi təkcə iqtisadi xarakter daşımır, yəni, gömrük xidməti Azərbaycanın dövlət müstəqilliyinin qorunması üçün lazım olan bir təşkilat kimi, eyni zamanda, başqa funksiyalar da daşıyır. Bu funksiyaların hamısını siz layiqincə yerinə yetirməlisiniz" -deyən Heydər Əliyev Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi vəzifəsinin yerinə yetirilməsində, dünya birliyində respublikamızın demokratik, hüquqi dövlət olaraq tanınmasında gömrük xidmətini də mühüm dövlət orqanı kimi ön cərgədə görmək istədiyini bildirirdi.

Azərbaycan Respublikasının dövlət büdcəsinin formalaşmasında Dövlət Gömrük Komitəsinin rolu xeyli artırıldı, gömrük işinin iqtisadi göstəriciləri və maddi-texniki resursları, informasiya təminatı yaxşılaşdırıldı, gömrük qanunvericiliyinin formalaşdırılması, hüquqi-normativ sənədlərin və gömrük işinə dair ilk milli dərsliklərin yaradılması, tədris-metodiki vəsaitlərin hazırlanması həyata keçirildi, ölkə gömrüyünün beynəlxalq təşkilatlarla əlaqəsinin daha da möhkəmləndirilməsi və təcrübə mübadiləsi aparılması sahəsində səylər geniş xarakter aldı.

Müstəqil Azərbaycan Respublikasında gömrük işinin təşkili və inkişafı tarixini tədqiq edənlər bu dövrü üç mərhələyə bölürlər: 1992-1994-cü, 1995-2000-ci illər və 2001-ci ildən başlayan daha yüksək inkişaf dövrü.

Birinci mərhələdə, məlum olduğu kimi, gömrük orqanları yaradılsa da, milli maraqlara xidmət edən dövlət strukturu olaraq öz funksiyasını, demək olar ki, həyata keçirə bilmədi. İkinci mərhələdə gömrük işinin yenidən qurulması, maddi-texniki və hüquqi-normativ bazanın möhkəmləndirilməsi, büdcə gəlirlərinin artırılması, gömrüyün kadr potensialının gücləndirilməsi, xidmət mədəniyyətinin yüksəldilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin qurulması işi vüsət aldı. Gömrük Məcəlləsi və Gömrük Tarifi haqqında qanun əsasında qurulan gömrük fəaliyyəti bu mərhələnin əsas xüsusiyyəti idi. Azərbaycan gömrüyünün inkişafında üçüncü mərhələ 2001-ci ildə yeni tarif sisteminin qəbul edilməsi ilə gömrük orqanlarının fəaliyyətində yeni bir dövrün başlanğıcını qoydu. Bu dövr dünya təcrübəsinin mənimsənilməsi, inkişaf etmiş ölkələrin gömrük xidmətlərilə sıx əlaqələrin qurulması, ölkəmizdə gömrük işinin köklü surətdə yaxşılaşdırılması ilə müşayiət olunan keyfiyyətcə yeni bir mərhələdir.

Gömrük işi sahəsində həyata keçirilən islahatlar – gömrük hüquqpozmalarının qarşısının alınmasını, gömrük nəzarətində mütərəqqi texnologiyaların tətbiqini, gömrük ödənişlərinin büdcəyə daxil olmasına

nəzarətin və valyuta nəzarətinin gücləndirilməsini, gömrük sənədlərinin beynəlxalq tələblərə uyğunlaşdırılmasını, bütövlükdə gömrük xidmətinin və onun struktur bölmələrinin işinin səmərəliyinin müntəzəm olaraq təhlil edilməsini və digər məsələləri nəzərdə tuturdu.

Gömrük işinin formalaşmasında onun qanunvericilik və hüquqi-normativ bazasının yaradılması əsas yer tutur. Gömrük işinin hüquqi əsaslarının yaradılması sahəsində mühüm rol oynayan və Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli qanunu ilə təsdiq edilmiş Gömrük Məcəlləsində dövlətin daxili və xarici siyasətinin tərkib hissəsi olan vahid gömrük siyasətinin məqsədləri ifadə olunmuşdur.

Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsinə dair imzalanmış Prezident fərmanları, Nazirlər Kabinetinin müvafiq qərar və sərəncamları, həmçinin digər hüquqi-normativ sənədlər idxal-ixrac əməliyyatlarına gömrük nəzarətinin təkmilləşdirilməsi sahəsində mühüm rol oynasa da, Gömrük Məcəlləsinin təsdiq olunması, hələ 20 iyun 1995-ci ildə imzalanmış "Gömrük tarifi haqqında" qanunun qüvvəyə minməsi gömrük işinin hüquqi bazasını daha da möhkəmləndirdi. Bu qanuna əsasən, Nazirlər Kabinetinin 12 yanvar 1998-ci il tarixli qərarı ilə "Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi Qaydaları" təsdiq edildi. Gömrük tarifi və valyuta tənzimlənməsi haqqında Azərbaycan Respublikasının qanunları gömrük orqanlarına valyuta nəzarətini həyata keçirmək hüququ verdi və gömrük rüsumlarının dəqiq hesablanaraq vaxtında dövlət büdcəsinə köçürülməsi tələbini qoydu.

Gömrük qanunvericiliyinin inkişafında Azərbaycan Prezidentinin 27 oktyabr 1998-ci il tarixli fərmanı ilə təsdiq edilmiş Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə də mühüm yer tutur. Bu sənəddə ölkədə gömrük siyasətinin strateji məsələlərinin müəyyənləşdirilməsi və həlli mərhələsində DGK-nın funksiyaları öz əksini tapmışdır.

Ölkəmizin gömrük təşkilatının işini dünya standartlarına yaxınlaşdıran mühüm sənədlərdən biri də Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli qanunu ilə təsdiq olunmuş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə" oldu. Gömrük orqanlarına hüquq-mühafizə səlahiyyətinin verilməsi ona qaçaqmalçılığın və gömrük işi sahəsində digər cinayətlərin qarşısının alınmasında məqsədyönlü tədbirləri həyata keçirməyə imkan verdi.

Sözügedən dövrdə Dövlət Gömrük Komitəsinin beynəlxalq əlaqələri də genişlənmiş, Azərbaycanın beynəlxalq iqtisadi inteqrasiyanın inkişaf etdirilməsində və möhkəmləndirilməsində rolu artmışdır. Azərbaycan 17 iyun 1992-ci ildən Ümumdünya Gömrük Təşkilatının (ÜGT) üzvü olsa da, gömrük sisteminin yüksələn xətlə inkişafı, beynəlxalq standartlara uyğun olaraq gömrük işinin təkmilləşdirilməsi beynəlxalq təşkilatlarda daha geniş və səmərəli təmsil olunmasına şərait yaratdı. O dövrlər ÜGT-nin baş katibi vəzifəsində çalışmış Mişel Danenin 1999-cu ilin sentyabrında postsovet məkanında ilk dəfə Azərbaycana səfəri və ulu öndər Heydər Əliyevlə danışıqları ölkəmizlə bu təşkilat arasında ikitərəfli əlaqələrin yaradılmasında mühüm rol oynadı. Həmçinin Dövlət Gömrük Komitəsinin 24 iyun 1999-cu ildə ÜGT Maliyyə Komitəsinin üzvü seçilməsi, 6 iyul 2000-ci ildə isə ÜGT-nin əsas qurumlarından biri olan siyasi komissiyada təmsil olunması Azərbaycan gömrükçülərinə dünya təcrübəsindən maksimum bəhrələnməyə şərait yaratdı.

Ümumdünya Gömrük Təşkilatına üzv olan ölkələrin gömrük xidmətləri ilə yaradılan işgüzar əlaqələr müsbət nəticələr verdi. Məhz belə şəraitdə – 2003-cü il sentyabrın 30-da Bakıda ÜGT-nin Regional Tədris Mərkəzi açıldı. Dövlət Gömrük Komitəsi digər beynəlxalq təşkilatlarla, o cümlədən BMT İnkişaf Proqramı, MDB Gömrük Xidməti Rəhbərləri Şurası, İqtisadi Əməkdaşlıq Təşkilatı, Gömrük Əməkdaşlıq Komitəsi və s. müvafiq qurumlarla da əlaqələrini genişləndirdi.

Neft strategiyasının reallaşmasında da gömrük xidmətinin yeri və vəzifələri dəqiq müəyyənləşdirildi. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə (ABƏŞ) daxil olan malların gömrük rəsmiləşdirilməsini sürətləndirmək və gömrük nəzarətini sadələşdirmək üçün "Sahil" (1997-ci il), "Dübəndi" və "Liman" (1998-ci il), daha sonra isə "Yeni sahil" (2002-ci il) gömrük postları istifadəyə verildi. Habelə, TASİS və TRASEKA proqramları çərçivəsində beynəlxalq təşkilatlarla birgə həyata keçirilən tədbirlər nəticəsində sərhəd buraxılış məntəqələrində gömrük prosedurlarının harmonikləşdirilməsi və sadələşdirilməsi istiqamətində mühüm addımlar atıldı.

Məlum olduğu kimi, gömrük xidmətinin fəaliyyətinin vacib istiqamətlərindən birini narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə təşkil edir. Ölkə ərazisindən narkotiklərin tranzit daşınmalarının qarşısına sədd çəkmək məqsədilə xüsusi tədbirlər görülür, o cümlədən ixtisaslaşdırılmış kadrların hazırlanmasına diqqət artırılır, müasir avadanlıqlar quraşdırılır, xüsusi kinoloji xidmətin imkanlarından istifadə olunur və s. 1997-ci ildən başlayaraq Azərbaycan ərazisindən narkotiklərin qaçaqmalçılıq yolu ilə daşınmasının qarşısının alınmasında BMT və Avropa İttifaqının yardım proqramları, 29 iyun 2001-ci ildən həmin təşkilatların Azərbaycan hökuməti ilə imzaladıqları sazişə əsasən, "Cənubi Qafqazda Narkotiklərə

Nəzarət Regional Yardım Proqramı"nın həyata keçirilməsində digər aidiyyəti hüquq-mühafizə orqanları ilə yanaşı, DGK strukturları da fəal iştirak edir.

Müasir dövrdə Azərbaycan gömrük xidməti mükəmməl hüquqi bazaya, inkişaf etmiş infrastruktura malik olmaqla ölkənin quru, hava və dəniz yollarında respublikanın iqtisadi mənafeyini və təhlükəsizliyini qoruyur, qaçaqmalçılığa qarşı uğurla mübarizə aparır. Bir sözlə, ölkəmizdə dünyanın ən təkmil gömrük sistemlərindən biri fəaliyyət göstərir. Bu müasir gömrük sistemini müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyev yaratmışdır.

Heydər Əliyev yolunun layiqli davamçısı, respublika Prezidenti İlham Əliyev Azərbaycan gömrüyünün öz ənənələrini qoruyub saxlaması və daha da təkmilləşdirilməsi işini daim diqqət mərkəzində saxlayır. Prezident İlham Əliyevin 2004-cü ilin mayında Belçikaya səfəri zamanı Brüsseldə onun iştirakı ilə Ümumdünya Gömrük Təşkilatı ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi arasında niyyət protokolunun imzalanması, 2005-ci ilin mayında isə Bakıda ilk dəfə Ümumdünya Gömrük Sərgisi və forumunun, həmçinin "Heydər Əliyev və Azərbaycan gömrüyünün inkişafı" mövzusunda beynəlxalq simpoziumun, eləcə də 2006-cı ilin fevralında ÜGT Avropa Regionu Gömrük Xidməti Rəhbərlərinin beynəlxalq konfransının keçirilməsi ölkə rəhbərliyinin bu sahəyə diqqət və qayğısının əyani nümayişi idi.

Respublikanın iqtisadi-ticarət əlaqələrinin coğrafiyasının ildən-ilə genişlənməsi, həcminin idxal-ixrac əməliyyatlarının artması və Azərbaycanın beynəlxalq iqtisadi sistemə inteqrasiyasının güclənməsi gömrük əməliyyatlarını tənzimləyən normativ-hüquqi aktların təkmilləşdirilməsini, inkişaf etmiş dövlətlərin gömrük işi sahəsində qabaqcıl təcrübəsi və bu sahədə qəbul olunmuş beynəlxalq konvensiyaların müddəaları nəzərə alınmaqla bütövlükdə ölkədə gömrük qanunvericiliyinin təkmilləşdirilməsini, o cümlədən bu sırada mühüm yer tutan yeni Gömrük Məcəlləsinin qəbul edilməsini zəruri etmişdir. Artıq Azərbaycan Respublikasının gömrük qanunvericiliyinin təkmilləşdirilməsi və inkişaf etdirilməsi, eləcə də gömrük işi sahəsində beynəlxalq standartların öyrənilməsi və onların tətbiq edilməsi işinin davam etdirilməsi, Avropa İttifaqının "Yeni Qonşuluq Siyasəti" çərçivəsində 2006-cı ildə qəbul edilmiş "Azərbaycan-Avropa İttifaqı Fəaliyyət Planı"nın "Azərbaycan gömrük xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi" ilə bağlı müddəalarının yerinə yetirilməsi, həmçinin "Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında" Beynəlxalq Konvensiyanın müddəalarının (Kioto Konvensiyası) və Ümumdünya Gömrük Təşkilatının "Beynəlxalq Ticarətin Asanlaşdırılması və Təhlükəsizliyi üzrə Çərçivə Standartları"nın milli gömrük qanunvericiliyində əks olunması məqsədilə Dövlət Gömrük Komitəsində Avropa İttifaqı və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının birgə həyata keçirdiyi "Azərbaycan Respublikasında Gömrük Xidmətinin Təkmilləşdirilməsi" layihəsi çərçivəsində ölkəmizdə fəaliyyət göstərən beynəlxalq ekspertlər tərəfindən komitənin mütəxəssislərinin iştirakı ilə Azərbaycan Respublikasının yeni Gömrük Məcəlləsinin layihəsi hazırlanmışdır. Hazırda layihə Azərbaycan Respublikası Prezident Administrasiyasında hüquqi ekspertizadan keçirilir.

Ölkə Prezidentinin fevral 2007-ci il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikası gömrük sisteminin 2007-2011-ci illərdə inkişafına dair Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlər və dövlət başçısının 11 noyabr 2008-ci il tarixli fərmanına əsasən Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiq edilməsində də məqsəd məhz gömrük sisteminin inkişafını sürətləndirmək, gömrük orqanlarının fəaliyyətini daha da təkmilləşdirməkdir. Prezidentin 14 aprel 2009-cu il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq da müvafiq ərazilərdə gömrük orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi üçün aidiyyəti tədbirlər görülür.

Bu baxımdan Azərbaycan Prezidentinin 15 mart 2010-cu il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatı arasında Azərbaycan Respublikasının Bakı şəhərində potensialın gücləndirilməsi üzrə Ümumdünya Gömrük Təşkilatının regional ofisinin yaradılması ilə əlaqədar Anlaşma Memorandumu"nun həyata keçirilməsinə başlanılması xüsusi əhəmiyyət kəsb edir. Belə ki, bu ofis Avropa regionunda potensialın gücləndirilməsi mərkəzi olaraq koordinasiya və tədbirlərin həyata keçirilməsi, gömrük xidmətlərinə yardımın göstərilməsi və donor təşkilatlarla qarşılıqlı əlaqələrin yaradılmasını təmin etməklə ÜGT-yə üzv dövlətlərlə səmərəli fəaliyyətin təşkilinə xidmət edəcək.

Bəli, qısa vaxt ərzində kifayət qədər təcrübə toplayıb dünyanın gömrük sistemində özünəməxsus yer tutan Azərbaycanın gömrük orqanları ölkəmizin iqtisadi təhlükəsizliyinin keşiyində dayanmaqla üzərinə düşən vəzifələrin yerinə yetirilməsində, müxtəlif ölkələrlə əlaqələrin genişləndirilməsində yaxından iştirak edir. Azərbaycanda gömrük işinin təkamülü bir neçə vacib istiqamət üzərində qurulmuş və bu gün də inkişaf etdirilməkdədir.

"**Azərbaycan**".-2010.-8 may.-N 99.-S.7.

# ELMİ-İNTELLEKTUAL İNKİŞAFI TƏMİN EDƏN RƏHBƏR

**Abel MƏHƏRRƏMOV,**
Bakı Dövlət Universitetinin rektoru, akademik,
Milli Məclisin deputatı

**İqtisadi sahədə keçid dövrünü uğurla başa vuraraq sosial-iqtisadi modernləşmənin keyfiyyətcə yeni mərhələsinə qədəm qoyan Azərbaycanın qısa zamanda ictimai həyatın bütün sahələrində əldə etdiyi yüksək nailiyyətlər təbii olaraq siyasi və elmi-fəlsəfi dairələrdə geniş müzakirə mövzusu olmuşdur. Hazırda dünyanın ən müxtəlif nüfuzlu iqtisadi mərkəzləri respublikamızın davamlı iqtisadi yüksəlişi timsalında XXI əsrin yeni iqtisadi fenomenini görür, "İnkişafın Azərbaycan modeli"nin mahiyyətini öyrənməyə çalışırlar. Ən fərqli rəylər, fikir və mülahizələr isə məhz bu nöqtədə birləşir ki, Azərbaycanın hazırda dayanıqlı və möhkəm təməl üzərində sürətli inkişafı məhz ümummilli lider Heydər Əliyevin ötən əsrin 70-80-ci illərdə uzaqgörənliklə formalaşdırdığı iqtisadi-siyasi, mənəvi potensiala söykənir.**

1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə irəli çəkilən ulu öndər Heydər Əliyev ilk gündən hər cür ideoloji-siyasi baryerlərə sinə gərərək xalqın milli özünüdərki üçün zəruri tədbirlər həyata keçirməyə başlamış, cəmiyyəti bütün sahələr üzrə mənəvi yüksəlişlərə ruhlandırmağı bacarmış, xalqda milli heysiyyatı gücləndirmək, onu şanlı keçmişinə, soy-kökünə qaytarmaq, habelə zəngin mədəni irsini yaşatmaq naminə bir sıra tədbirlər görmüşdür.

Bugünkü müstəqil Azərbaycan dövlətinin iqtisadi-siyasi əsaslarının, milli kadr potensialının formalaşması, respublikada strateji əhəmiyyətli sənaye və istehsal müəssisələrinin açılması da məhz ötən əsrin 70-80-ci illərinə təsadüf edir. Ümummilli lider Heydər Əliyevin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri məhz Azərbaycanda inşa olunmuş, bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsası formalaşdırılmışdır. Böyük strateqin təkidi ilə keçmiş ittifaq rəhbərliyi respublikamızda bir sıra iri müasir maşınqayırma, kimya, neft-kimyası, elektron sənayesi, əlvan və qara metallurgiya, toxuculuq, yeyinti, emal müəssisələrinin tikintisinə razılıq vermiş, paralel olaraq energetika və nəqliyyat kompleksi inkişaf etdirilmişdir. Həmin illərdə Bakıda, Sumqayıtda, Gəncədə və digər şəhərlərdə inşa olunan iri müəssisələr bugünün özündə də iqtisadiyyatın güclü sənaye kompleksinin formalaşmasına zəmin yaradan möhkəm təməldir. Bütün bunlar bir daha təsdiqləyir ki, Heydər Əliyev o dövrün ağır şərtləri, məhdudiyyətləri çərçivəsində də xalqımızın gələcək rifahı üçün əlindən gələni əsirgəməmiş, bəzən mümkün görünməyəni reallığa çevirmişdir. Çox sonralar nitqlərinin birində "Biz sovet rejimində yaşayırdıq. Məgər biz bu rejimi dəyişə bilərdik? Amma iş ondadır ki, bu rejim altında olsa da sən xalqın, millətin üçün nə edirsən. Əgər bu rejimi dəyişdirə bilmirsənsə, onda onun imkanlarından istifadə edib xalqına kömək göstər. Mən bunu etdim. Azərbaycan o illərdə çox yüksəklərə qalxdı" – deyən Heydər Əliyev həmin dövrü Azərbaycanın inkişafında mühüm mərhələ kimi səciyyələndirmişdir.

Həmin dövrdə cəmiyyətin ən müxtəlif sahələrində nizam-intizamın, haqq-ədalətin təminatına çalışan, bunu məmurluğun formuluna çevirən ulu öndər bu yolla dövlətlə xalq arasında möhkəm mənəvi, siyasi və hüquqi bağlantıya, qarşılıqlı etimada nail olmağa çalışmışdır. "Qoy, ədalət zəfər çalsın!" devizindən çıxış edən ümummilli lider qanunçuluğun, hüquq qaydalarının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirmiş, xalqın hüquqlarının əzmkar və cəfakeş müdafiəçisinə çevrilməklə, milli ruh, iradə və özünüdərk meyillərinin ictimai şüurda möhkəmlənməsinə nail olmuşdur.

Ötən əsrin 70-80-ci illərində küçə və meydanlara, dövlət idarələrinə, dükan-mağazalara sərbəst baş çəkərək xalqı narahat edən, qayğılandıran problemləri yaxından öyrənən və bunun nəticəsi kimi yüksək vəzifəli məmurlara münasibətini müəyyənləşdirən ulu öndər hər zaman xalqa yaxın olmağa çalışmışdır. Heydər Əliyev insanların üzləşdiyi çətinlikləri yerindəcə öyrənməyi və onları aradan qaldırmaq üçün təxirəsalınmaz tədbirlər həyata keçirməyi idarəçilikdə mötədil ənənə kimi formalaşdırmış, hakimiyyət məmurlarının sadə xalq kütlələri ilə münasibətlərdəki hər cür psixoloji baryerə, bürokratik əngəllərə qarşı çıxmışdır. Ulu öndər idarəçilikdə özünütənqid ruhunu vacib saymış, hələ o zamandan mətbuatın açıq tənqidi materiallar dərc etməsinə lazımi siyasi mühit yaratmış, demokratik meyllərin rüşeym halında cücərməsini təmin etmişdir.

Həmin dövrdə milli düşüncəli vətənpərvər ziyalılarımızın imperiyanın xüsusi xidmət orqanlarının təqiblərindən qurtulması, insanlarda milli dövlətçilik hissini gücləndirən sanballı əsərlər yazıb-yaratması Heydər Əliyevin böyük dəstəyi sayəsində mümkün olmuşdur. Keçən əsrin 60-cı illərinin sonuna doğru mərhum akademik Ziya Bünyadov və onun ətrafına yığışmış bir neçə gənc vətənpərvər alim böyük siyasi cəsarətlə Azərbaycanın Rusiyaya könüllü birləşməsi fikrini təkzib edən mülahizələr irəli sürmüş, bu hadisənin yubileyinin qeyd edilməsinin əleyhinə çıxmışdılar. Buna görə onları böyük cəza gözləsə də, Heydər Əliyev bu

vətənpərvər tarixçilərin təhlükəsizlik orqanlarının sərt təqibləri, repressiyaları ilə üzləşməsinə imkan verməmişdir. Ümummilli lider sonralar bu hadisəni xatırlayarkən demişdir: "…Universitetdə bir neçə adam Azərbaycan tarixini araşdırarkən Azərbaycanın Rusiyaya birləşməsi haqqında mübahisə aparmışdı ki, Azərbaycan Rusiyanın tərkibinə könüllü girmişdi, yaxud məcburi girmişdi. Bunu o vaxtlar şişirtdilər. Bu, böyük bir iğtişaş yaratdı. Başladılar araşdırmağa ki, bunlar millətçidirlər, yaxud başqa fikirləri var, dövlət mövqeyindən kənarda yaşayırlar. Mən bu məsələnin şişirdilməsinə imkan vermədim".

Həmin dövrdə bədnam qonşularımız görkəmli tarixçi alim Ziya Bünyadovun "Atabəylər dövləti" kitabını dövlət mükafatına layiq görən Heydər Əliyevin özünü belə, millətçilikdə, şovinizmdə ittiham edirdilər. Lakin ulu öndər belə ittihamlara qətiyyən fikir vermir, milli yüksəlişə xidmət missiyasını davam etdirirdi. Xatırlatmaq yerinə düşər ki, ötən əsrin 70-ci illərində məşhur "Gülüstan" poemasını yazdığına görə DTK-nın təqiblərinə məruz qalmış mərhum şair Bəxtiyar Vahabzadə də məhz ulu öndər Heydər Əliyevin qətiyyəti, prinsipiallığı sayəsində həbs olunmaqdan qurtulmuşdu. Repressiyaya məruz qalaraq 1937-ci ildə Sibirə sürgün olunmuş görkəmli ziyalı və dramaturq Hüseyn Cavidin nəşini 1981-ci ildə Uzaq Sibirdən Azərbaycana gətirmək üçün apardığı mübarizə də ulu öndərin milli irsə ehtiramla yanaşan, heç bir siyasi riskdən çəkinməyən şəxsiyyət olduğunu bir daha təsdiqləyir.

Ulu öndər Heydər Əliyev sağlığında milli təmayüllü kommunist kimi müxtəlif təqiblərə, təzyiqlərə məruz qalan, ölümündən sonra isə unutdurulmağa çalışılan görkəmli ictimai-siyasi xadim Nəriman Nərimanovun 100 illik yubileyini qeyd etmək, onun heykəlini ucaltmaq üçün Sovet imperiyasının rəhbərliyi ilə danışıqlara iki il vaxt sərf etmişdi. Nəticədə Azərbaycan KP MK bürosunun 1972-ci il mayın 24-də keçirilən iclasında Nəriman Nərimanovun Bakı şəhərində heykəlinin ucaldılması barədə qərar qəbul etmişdir. Ulu öndər eyni zamanda görkəmli ədibin 1977-ci ildə Rusiyanın Ulyanovsk şəhərində əzəmətli abidəsinin ucaldılmasını təmin etmişdir. Bu addımları ilə Heydər Əliyev, əslində Nəriman Nərimanova görkəmli dövlət xadimi kimi bəraətin verilməsinə, onun ədəbi irsinin təbliğinə, cəmiyyətə daha yaxından tanıdılmasına çalışmışdır.

Ulu öndərin respublikaya birinci rəhbərliyi illərində Azərbaycan ziyalıları – tarixçilər, yazıçı və publisistlər şanlı keçmişimizin mümkün qədər obyektiv tədqiqi və qələmə alınması istiqamətində ilk addımlarını atmağa başlamışlar. Respublika yazıçılarının 1976-cı ilin may ayında keçirilmiş qurultayında iştirak etmiş Heydər Əliyev tədbirdə geniş nitq söyləyərək milli ədəbi düşüncənin, onun inkişaf istiqamətlərinin, problemlərinin həlli yollarının dərin bilicisi olduğunu göstərmişdir. Böyük strateq elm xadimlərinə xalqın qədim tarixi, soy-kökü ilə bağlı olan yazılı abidələrin dərindən öyrənilməsini tövsiyə etmiş, azərbaycanlıların dünya ədəbiyyatı ilə yaxından tanış olmaları üçün tərcümə işinin qaydaya salınmasının vacibliyini vurğulamışdır.

Ümummilli lider həmin illərdə milli kadrların yetişdirilməsi işinə də xüsusi qayğı ilə yanaşmış, bu məqsədlə təhsilin səviyyəsinin yüksəldilməsini önə çəkmişdir. O dövrdə milli-mütərəqqi fikrin və ictimai düşüncənin başlıca mərkəzi kimi çıxış etməklə flaqman ali məktəb statusunu qoruyub saxlayan, milli kadr hazırlığında əsas yükü üzərinə götürən Azərbaycan Dövlət Universitetinə diqqət və qayğının artırılması, bu təhsil ocağının fəaliyyətinin gücləndirilməsi də daim Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Heydər Əliyev yaxşı bilirdi ki, universitet auditoriyalarında, kafedralarında işləyən, dərs deyən müəllimlər Azərbaycan xalqının mənliyinin, milli şüurunun, milli ruhunun inkişaf etdirilməsi prosesində müstəsna rol oynayırlar. 1969-cu il 1 noyabr tarixdə universitetin 50 illik yubileyinin keçirilməsinə qərar verməsi və həmin toplantıda Azərbaycan dilində dərin məzmunlu nitq söyləməsi də onun bu elm məbədinə verdiyi yüksək qiymətin təzahürü kimi bu gün də rəğbətlə xatırlanır. Heydər Əliyev həmin dövrdən Azərbaycanın inkişafını və intibahını məhz bu ali təhsil ocağında axtarmış, Bakı Dövlət Universitetində layiqli kadrların yetişdirilməsi üçün əlindən gələni əsirgəməmişdir. Universitetə hər zaman müqəddəs məbəd kimi yanaşmış, bu müqəddəsliyə xələl gətirə biləcək mənfi təzahürlərin aradan qaldırılması üçün yeri gələndə hətta sərt addımlardan belə çəkinməmişdir. Eyni zamanda ali məktəblərə qəbul prosesində özünü göstərən neqativ halların qarşısını almaq, ölkənin hüquq sistemini saflaşdırmaq üçün vəzifəli şəxslərin övladlarının o zamankı Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmasını yasaqlayan qərar qəbul etmişdir. O dövrə qədər yalnız vəzifə sahiblərinin övladlarının təhsil aldığı hüquq fakültəsinə fəhlə-kəndli balaları da qəbul olunaraq gələcəyin peşəkar hüquqşünasları kimi yetişmək, hüquqi dövlət quruculuğu prosesinə öz töhfələrini vermək imkanı qazanmışlar.

Ulu öndər ADU-nun 60 illik yubileyinin təşkilinin də əsas təşəbbüskarı olmuş, 1980-ci ildə keçirilmiş həmin mərasimdə iştirak edərək təbrik nitqi söyləmişdir. Sovetlər birliyi dövründə universitetin beynəlxalq əlaqələrinin genişlənməsi də məhz Heydər Əliyevin respublikada rəhbərliyə gəlişindən sonra mümkün olmuşdur. Universitet bir sıra dövlətlərin analoji ali təhsil müəssisələri ilə əməkdaşlığa başlamış, beynəlxalq əlaqələri keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Ümumiyyətlə, 1969-1982-ci illərdə Azərbaycanda humanitar və ictimai elm sahələrində böyük irəliləyişlər əldə edilmiş, dilimizin, tariximizin, folklorumuzun tədqiqi sahəsində uğurlu nəticələr qazanılmışdır.

Sovet rejiminin sərt qanunlarına baxmayaraq, respublikada böyük iqtisadi, elmi və ədəbi-mədəni potensialın yaradılması da məhz bu uzaqgörən siyasətin nəticəsidir. Xalqın azadlıq idealları, XX əsrin əvvəllərindəki azərbaycançılıq, dövlətçilik dəyərləri ictimai şüurda geniş meydan tapmışdır. Milli-mənəvi şüura qayıdış çağdaş milli varlığın təsdiqi kimi reallaşmış, zəruri tarixi-mənəvi prosesə çevrilmişdir. Ötən əsrin 80-ci illərinin sonunda Azərbaycan xalqının milli "Mən"ini qorumaq üçün ayağa qalxıb ermənilərin ərazi iddialarına sərt reaksiya verməsi, ölkədə milli-azadlıq hərəkatının genişlənməsi də məhz bu möhkəm ideoloji-siyasi təmələ əsaslanmışdır.

Ulu öndərin fitri idarəçilik keyfiyyətləri sırasında onun ən ekstremal, çətin və millətin taleyi baxımından məsuliyyətli dönəmlərdə ictimai mənafeləri özündə tamamilə ehtiva edən qətiyyətli, eyni zamanda, yaranmış şərait üçün ən optimal qərarlar qəbul etmək məharəti də heç zaman xatirələrdən silinmir. Tarixi zərurətin diktəsi, xalqın təkidli istəyi ilə 1993-cü ilin iyununda – taleyüklü bir zamanda müstəqil Azərbaycanın rəhbərliyinə qayıdan, məsuliyyətli bir missiyanı çiyinlərinə götürməkdən çəkinməyən ulu öndər Heydər Əliyev qısa zamanda dövlətçiliyin xilasına, ictimai-siyasi sabitliyin, qanunçuluğun, hüquq qaydalarının bərpasına, iqtisadi tənəzzülün qarşısının alınmasına nail olmaqla yanaşı, həm də milli-mənəvi, əxlaqi dəyərlərin deqradasiyası təhlükəsinin qarşısını almışdır. Bakıya qayıtdıqdan sonra ilk görüş yerlərindən biri kimi məhz Azərbaycan Elmlər Akademiyasını seçən ümummilli lider humanitar və ictimai elmlərin yeni dövrün tələblərinə uyğunlaşdırılması, azərbaycançılıq ideologiyasının, milli-mənəvi dəyərlərin qorunması ilə bağlı alimlər qarşısında yeni tələblər müəyyənləşdirmişdir.

Ümummilli lider Heydər Əliyev 1993-cü ilin 28 sentyabrında ictimaiyyət nümayəndələri ilə ilk görüş yeri kimi məhz Azərbaycan Elmlər Akademiyasını seçməklə, intellektual potensialın daşıyıcıları olan elm xadimlərinin, ziyalıların cəmiyyətdəki roluna necə böyük önəm verdiyini bir daha nümayiş etdirmişdir. Böyük strateq yeni ictimai-iqtisadi formasiyada Azərbaycan elmində, təhsilində yeniləşmənin vacibliyini önə çəkmiş, bu sahələrdə davamlı islahatlar həyata keçirmişdir. Heydər Əliyev cəmiyyətin mənəvi-ideoloji cəhətdən yetkinləşməsində, ictimai şüurun yeniləşməsində humanitar elmlərin, iqtisadi sistemin tənəzzüldən qurtulmasında, milli iqtisadi inkişaf modelinin düzgün müəyyənləşdirilməsində, elmlə istehsalın üzvi vəhdətinin təmin olunmasında fundamental elmlərin rolunu düzgün dəyərləndirmişdir.

Ulu öndər xalqın tarixən formalaşmış milli-mənəvi dəyərlərinin, düşüncə sisteminin qloballaşan dünyanın kütləvi mədəniyyət təzahürlərindən qorunması, milli özünəməxsusluğumuzu tam ehtiva edən azərbaycançılıq ideologiyasının cəmiyyətdə möhkəm sosial dayaqlar taparaq zehinlərdə möhkəmlənməsi, davamlı inkişaf prosesində mənəvi stimula çevrilməsi üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. 1997-ci ilin 31 yanvarında Azərbaycan Elmlər Akademiyasının 50 illik yubiley mərasimində dərin məzmunlu nitq söyləyən böyük strateq Heydər Əliyev özünəməxsus müdrikliklə milli elmin qarşısında duran fundamental vəzifələrdən söz açmış, kifayət qədər mürəkkəb şəraitdə bu sahənin inkişaf strategiyasını, gələcək hədəflərini açıqlamışdır. Həmin mərasimdə Heydər Əliyev ictimai və humanitar elm sahələrində yeni dövrün tələblərinə uyğun yeniləşmənin, eləcə də sovetlər birliyi dövründən qalmış, köhnəlmiş stereotiplərdən, səmərəsiz tədqiqat metodlarından uzaqlaşmağın vacibliyini xüsusi diqqətə çəkmiş, xüsusən də tarixçiləri Azərbaycanın keçmişi ilə bağlı həqiqətləri daha obyektiv araşdırmağa, dövlətçilik maraqları baxımından bu sahəyə xüsusi həssaslıqla yanaşmağa çağırmışdır. "Biz indi xalqımızın tarixinin yaradılması işini gərək diqqət mərkəzinə alaq. Xatırlaya bilərsiniz, 70-ci illərdə mən dəfələrlə Elmlər Akademiyasının qarşısında vəzifə qoymuşdum ki, Azərbaycanın tarixi yazılmalıdır. Amma bu gün mənim haqqım var deyəm ki, tarixçilərimiz bu vəzifəni yerinə yetirmədilər, Azərbaycanın tarixi yazılmamışdır. Bizim tarixçilərimiz bir tərəfdən çəkişmə ilə məşğul oldular, hərə öz konsepsiyasını irəliyə aparmağa çalışdı. Amma Azərbaycanın tarixi yazılmalıdır. Alimlərimizin, tarixçilərimizin günahından yox, o vaxtkı ümumi ideologiyanın təsiri, yaxud bu ideologiyanın tələbi ilə yazılan tarix də, şübhəsiz ki, indi bizi qane edə bilməz. Məktəbə gedən gənc gərək Azərbaycanın tarixini bilsin, oxusun, öyrənsin. Amma o, köhnə dərsliklərdən bunu öyrənə bilməz. Dərsliyi də hərə öz istədiyi kimi yazmamalıdır. Gərək bizim xalqımızın tarixi yazılsın ki, onun əsasında da gənclər üçün, orta və ali təhsil məktəbləri üçün tarix dərslikləri yazılsın" – deyən Heydər Əliyev xüsusi vurğulayırdı ki, Azərbaycanın humanitar-ictimai və fundamental elm sahələri sürətlə yeniləşərək yeni ictimai-iqtisadi formasiyanın reallıqlarına cavab verməli, dövlət və dövlətçiliklə bağlı praktiki məqsədlərin gerçəkləşməsində, milli maraq və mənafelərin, ideologiyanın möhkəmlənməsində, ümumən cəmiyyətin proqressiv dəyərlər əsasında inkişafında lokomotivə çevrilməlidir.

Sovet Azərbaycanına rəhbərliyi dövründə formalaşdırdığı mütərəqqi ənənələri müstəqillik illərində inamla davam etdirən ulu öndər Azərbaycanın görkəmli şair və yazıçılarının, elm, incəsənət xadimlərinin yubileylərinin keçirilməsinə, ev-muzeylərinin yaradılmasına da xüsusi qayğı ilə yanaşmışdır. Heydər Əliyevin bu sahədəki mədəni quruculuq siyasəti nəticəsində mənəvi dəyərlərimiz qorunmuş, milli adət-ənənələrimiz yaşadılmış, klassiklərimizin yüz illərin sınağından günümüzə gəlib çatmış mənəvi irsinin gələcək nəsillərə

itkisiz çata bilməsi üçün lazım olan bütün zəruri addımlar atılmışdır. Bu baxımdan Heydər Əliyevin 1 noyabr 1994-cü ildə Ankara yaxınlığındakı Bilkənd Universitetində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinə həsr olunmuş yubileyində iştirakını xatırlatmaq yerinə düşər.

Ulu öndər müstəqillik illərində də xalqın milli-mənəvi dəyərlərini və düşüncə sistemini yaşadan, günümüzə gətirib çıxaran folklor nümunələrinə – qəhrəmanlıq eposlarına daim diqqətlə yanaşmışdır. 1997-ci il aprelin 20-də imzaladığı "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi haqqında fərmanı, yubiley komissiyasını yaratması və ona sədrlik etməsi, bunu dövlət işinin tərkib hissəsinə çevirməsi milli-mənəvi irsin qorunması, yaşadılması, öyrənilməsi və gələcək nəsillərə çatdırılması sahəsində olduqca əhəmiyyətli bir hadisə olmuşdur.

"Kitabi-Dədə Qorqud" abidəsinin YUNESKO kimi möhtəşəm beynəlxalq mədəniyyət təşkilatında qorunan mənəvi miraslar siyahısına salınması və bununla da onun dünya mədəniyyəti inciləri arasında özünəməxsus yer tutması Heydər Əliyevin iradəsi sayəsində mümkün olmuşdur. 1300 yaşlı bu qocaman abidənin yubileyinin Azərbaycanda keçirilməsi, həmin tədbirin böyük ədəbi-mədəni hadisəyə çevrilməsi, bütün türk xalqlarının siyasi liderlərinin, hökumət başçılarının, YUNESKO-nun baş direktorunun, onlarca xarici ölkədən gəlmiş elm adamlarının, ictimai-siyasi xadimlərin, yazıçı və şairlərin marağında olması dünya mədəniyyəti tarixində əlamətdar hadisələrdən biri kimi qalmışdır.

Ulu öndər milli-mədəni irslə yanaşı, mənəviyyatın, milli əxlaq və düşüncə modellərinin qorunub saxlanılması üçün də səylərini əsirgəməmişdir. Bu baxımdan Heydər Əliyevin 13 avqust 2001-ci il tarixli bəyanatı da milli-mənəvi dəyərlərin qorunmasına, gənc nəslin tərbiyəsinə mənfi təsir göstərən neqativ amillərin aradan qaldırılmasına xidmət etmişdir.

Müstəqil Azərbaycana rəhbərliyi dövründə də Bakı Dövlət Universitetinə xüsusi qayğı ilə yanaşan ulu öndər onun inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. BDU daim dünya şöhrətli məzununun qayğısını hiss etmiş, onun qarşıya qoyduğu ali ideyalar universitetin tələbə və professor-müəllim heyətinin əsas fəaliyyət stimulvericisinə çevrilmişdir. Ümummilli lider BDU-nun 80 illik yubileyindəki tarixi çıxışında demişdir ki, Azərbaycanın keçmişini, onun mədəniyyətini, elm və iqtisadiyyatını, bütövlükdə cəmiyyətini Bakı Dövlət Universitetindən ayrı təsəvvür etmək mümkün deyildir. Ulu öndər Heydər Əliyev universitetə hərtərəfli diqqət və qayğısı ilə bu ali təhsil müəssisəsinə yeni həyat vermiş, çətinliklərə baxmayaraq onu yeni dövrün tələbləri səviyyəsində mütəxəssis hazırlığına sövq etmişdir. Bu siyasətin nəticəsi olaraq universitetin hərtərəfli inkişafına xüsusi diqqət yetirilməsi, onun maddi-texniki bazasının gücləndirilməsi istiqamətində əməli tədbirlərin həyata keçirilməsi deyilənləri bir daha təsdiqləyir.

Ulu öndərin elmi təmələ söykənən siyasətini keyfiyyətcə yeni mərhələdə uğurla davam etdirən, Azərbaycanın bütün strateji sahələr üzrə inkişaf təmayüllərini düzgün müəyyənləşdirən dövlət başçısı İlham Əliyev də qloballaşma dövrünün tələblərinə cavab verən elm və təhsil strategiyasına üstünlük vermişdir. Respublika iqtisadiyyatının yüksək inkişaf tempi, ictimai-siyasi sabitliyin davamlı xarakter daşıması təhsilin və elmin dünya standartları səviyyəsinə qalxması üçün daha çevik islahatlar aparmağa imkan yaratmışdır. İnsan kapitalının formalaşdırılmasını prioritet məqsəd kimi önə çəkən, dövlətin innovasiya inkişafında müasir biliklərin, qabaqcıl texnologiyaların roluna mühüm yer ayıran bu rasional siyasətin başlıca hədəfi həm də qloballaşma dövründə milli azərbaycanlı obrazının qorunub saxlanılması, milli təfəkkürün, düşüncə sisteminin, milli-mənəvi dəyərlərin total təsirlərdən qorunmasıdır. Dövlət başçısı İlham Əliyev AMEA-nın 60 illik yubileyində, eləcə də Azərbaycan Ensiklopediyasını hazırlayan redaksiya heyəti ilə görüşdə çıxış edərkən elm xadimlərini qloballaşan dünyanın yeni çağırışlarına hazır olmağa, elmi tədqiqatlarda milli maraq və mənafeləri maksimum dərəcədə nəzərə almağa yönəltmiş, müasir dövrdə, xüsusən də humanitar-ictimai elm sahələri qarşısında yeni vəzifələrin qoyulduğunu vurğulamışdır.

Hazırda dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında gerçəkləşdirilən səmərəli islahatların nəticəsi kimi respublikamızın sürətlə modernləşməsi elm və təhsil sferasında da adekvat modernləşməni, əsaslı keyfiyyət dəyişikliklərini zərurətə çevirir. Sürətli iqtisadi və sosiomədəni tərəqqi yolu keçən Azərbaycanda elmin inkişaf təmayüllərinin respublikanın müasir reallıqlarına nəzərən müəyyənləşdirilməsi, bu sahədə mövcud problemlərin aradan qaldırılması, elmlə idarəçiliyin səmərəli vəhdətinin təmini, bu sahəyə yönəldilən vəsaitlərin rentabelliliyinə nail olunması yeni mərhələdə qarşıda ciddi vəzifələr kimi durur.

Təkcə son iki ildə elmin inkişafının maliyyə əsasları ilə yanaşı, Avropa standartlarına cavab verən mükəmməl qanunvericilik bazasının formalaşdırılması istiqamətində də müəyyən tədbirlər həyata keçirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin 10 aprel 2008-ci il tarixli "Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında", 4 may 2009-cu il tarixli "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında", 22 may 2009-cu il tarixli "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali

təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında", 22 oktyabr 2009-cu il tarixli "Elmin İnkişafına Yardım Fondunun yaradılması haqqında" sərəncamları məhz elm sahəsində həllini gözləyən problemlərin aradan qaldırılmasına xidmət edir.

Azərbaycanın hərtərəfli inkişafını elm və təhsildə, güclü insan kapitalının formalaşdırılmasında görən dövlət başçısı İlham Əliyev BDU-nun cəmiyyətdəki yerini və rolunu, ictimai əhəmiyyətini daim yüksək dəyərləndirmiş, onun davamlı yüksəlişi, tərəqqisi naminə bütün zəruri tədbirləri həyata keçirmişdir. Cənab İlham Əliyevin qayğısı sayəsində universitet son illərdə inkişafının daha dinamik mərhələsinə qədəm qoymuş, görkəmini, maddi-texniki bazasını müasirləşdirmiş, Avropa təhsil məkanına inteqrasiya prosesində böyük nailiyyətlərə imza atmışdır. 2008-ci ildə universitetin tikintisi uzun illər yarımçıq qalmış III korpusunun ən müasir tələblərə cavab verən səviyyədə inşa edilərək istifadəyə verilməsi də dövlət başçısının elmə, təhsilə qayğı siyasətinin bariz təcəssümüdür.

2009-cu ildə universitetin 90 illik yubileyinin respublika miqyasında geniş qeyd olunması, bu prosesin ümumən təhsil sistemində son illərin ən əlamətdar hadisələrindən birinə çevrilməsi də məhz dövlət başçısı İlham Əliyevin xidmətləri ilə bağlıdır. Azərbaycan Prezidentinin 24 aprel 2009-cu il tarixli "Bakı Dövlət Universitetinin 90 illik yubileyinin keçirilməsi haqqında" sərəncamı ilə yubiley tədbirlərinə start verilmiş, müxtəlif səviyyələrdə universitetin keçdiyi tarixi yola bir daha nəzər salınmış, onun dövlət və xalq qarşısındakı xidmətləri yüksək dəyərləndirilmişdir. Azərbaycanın elm, təhsil və mədəniyyətinin möhtəşəm məbədinə, ölkənin iqtisadi, siyasi və mədəni səviyyəsinin barometrinə çevrilmiş BDU-nun yubiley tədbirləri onun cəmiyyətdəki yüksək adına layiq şəkildə keçirilmiş, bu proses ölkə hüdudlarından kənarda da böyük diqqət çəkmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin 30 oktyabr 2009-cu il tarixli sərəncamları ilə Bakı Dövlət Universitetinin ümumilikdə 107 nəfər professor-müəlliminin müxtəlif fəxri adlara, mükafatlara, fərdi təqaüdlərə layiq görülməsi böyük amallar sahibi olan bu şəxsiyyətin elmə, təhsilə qayğısı, habelə universitetə ənənələrdən gələn diqqət nümunəsi olmuşdur.

Universitetin 2009-cu il noyabrın 2-də Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə keçirilən təntənəli yubiley tədbiri isə BDU-nun yubiley tədbirlərinin kulminasiyası və həm də uğurlu yekunu olmuşdur. BDU-nun milli təhsil sistemindəki yerini yüksək dəyərləndirən cənab İlham Əliyev demişdir: "Bakı Dövlət Universiteti Azərbaycanın aparıcı təhsil ocağıdır. Burada çox güclü professor-müəllim heyəti vardır və bütün dövrlərdə universitet Azərbaycanda peşəkar kadrların hazırlanmasında çox böyük işlər görmüşdür. Bu gün isə universitet inkişafının yeni mərhələsini yaşayır. Həm təhsilin keyfiyyəti artır, həm də universitetin maddi-texniki bazası möhkəmlənir. Bir sözlə, bizim – Azərbaycanın yerləşdiyi bu bölgədə Bakı Dövlət Universitetinin xüsusi çəkisi vardır".

Ulu öndər Heydər Əliyevin ali ideyalarına tapınan BDU-nun elm-təhsil müəssisəsi olaraq qarşısında duran ən başlıca məqsəd gələcəyin vətənpərvər, ziyalı vətəndaşını, yüksək səviyyəli mütəxəssisini hazırlamaqdan ibarətdir. Bu vəzifəni düzgün dəyərləndirən universitetin professor-müəllim heyəti qarşıya qoyduğu hədəflərə yetişmək üçün bütün imkanlarını səfərbər etmiş, eyni zamanda strateji istiqamətləri dəqiq müəyyənləşdirmişdir.

Universitetin professor-müəllim heyəti ürəkdən inanır ki, Azərbaycan xalqını firavan gələcəyə aparan bu siyasətin davamlılığı qarşıdakı illərdə də təmin olunacaq, müstəqil respublikamız cənab İlham Əliyevin rəhbərliyi altında inkişaf tempini sürətləndirərək dünyanın qabaqcıl dövlətləri sırasında layiqli yerini tutacaqdır.

"**Azərbaycan**".-2010.-8 may.-N 98.-S.6.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİ: ƏSAS MƏQSƏDİ, VƏZİFƏLƏRİ VƏ İCRA MEXANİZMLƏRİ

**Əli Həsənov,**
Prezident Administrasiyasının şöbə müdiri,
YAP İdarə Heyətinin üzvü

XX əsrin sonunda müstəqillik əldə etməsi Azərbaycanın həm dövlət quruluşunda əsaslı dəyişikliklərin həyata keçirilməsini, yeni sosial-iqtisadi və ictimai-siyasi münasibətlərin formalaşmasını şərtləndirdi, həm də ona, davamlı olaraq, öz təhlükəsizliyinin qayğısına qalmaq kimi daimi bir məsuliyyət bəxş etdi. Milli Təhlükəsizlik Konsepsiyasının qəbul olunmasından öncə Milli Məclis tərəfindən 2004-cü ildə "Milli təhlükəsizlik haqqında" Qanun qəbul olunmuş və respublika Prezidentinin 2004-cü il 29 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuşdur. Bu qanun özündə Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin milli təhlükəsizlik təliminin və siyasətinin əsas prinsiplərini, məqsəd və vəzifələrini əks etdirmiş və gələcək MTK-nın yaradılmasını şərtləndirmişdir.

Milli Təhlükəsizlik Konsepsiyası ölkənin milli təhlükəsizlik siyasətinin həyata keçirilməsində uzunmüddətli strateji vəzifə və prioritetləri özündə əks etdirən konseptual sənəd hesab olunur. Konsepsiya Azərbaycan Prezidentinin 2007-ci il 23 may tarixli Sərəncamı ilə təsdiq olunmuş və fəaliyyət üçün əsas götürülmüşdür. Girişdən, dörd bölmədən və yekun müddəalardan ibarət olan MTK XXI əsrdə ölkənin milli maraqların təmin olunması ilə bağlı hakimiyyət strukturlarının bəzi fəaliyyət istiqamətlərini müəyyən edilir və milli təhlükəsizlik sahəsində dövlət siyasətinin normativ-hüquqi bazasını təkmilləşdirilir.

**Təhlükəsizlik siyasətinin əsas məqsəd və vəzifələri**

Azərbaycan dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, vətəndaşlarının hüquqlarının, cəmiyyətinin milli və vətəndaş birliyinin, ölkənin sabit inkişafının tələb etdiyi ən ümdə dövləti vəzifələr və onların təminatı yolları, mövcud milli resursların bu işə səfərbər edilməsi proqramı və bəhs olunan sahədə məsuliyyətli dövlət idarəçiliyinin yaradılması onun milli təhlükəsizlik siyasətinin ən ali məqsədini təşkil edir.

Mürəkkəb geosiyasi məkanda yerləşən Azərbaycan Respublikası müstəqilliyə qovuşduğu andan hüquqi və dünyəvi dövlət, demokratik cəmiyyət və siyasi plüralizm yolunu öz inkişafının və konstitusiya quruluşunun əsası elan edərək, bölgə ölkələri ilə sülh və mehriban qonşuluq şəraitində, dünyanın qabaqcıl siyasi, iqtisadi və təhlükəsizlik sistemləri ilə bərabərhüquqlu əməkdaşlıq etmək və bu strukturlara inteqrasiya olunmaq xətti yürüdür.

Azərbaycan hesab edir ki, XXI əsrdə beynəlxalq münasibətlərin tənzimlənməsinin və münaqişələrin həllinin koordinasiya mərkəzi BMT olmalıdır. Odur ki, beynəlxalq aləmdə baş verən siyasi və iqtisadi dəyişikliklərə məqsədyönlü şəkildə adaptasiya olunması məqsədilə, BMT-də rasional islahatların aparılmasını ölkəmiz daim dəstəkləməlidir. Azərbaycan bir çox nüfuzlu beynəlxalq və regional təşkilatların üzvü kimi dünyanın aparıcı dövlətləri ilə münasibətləri inkişaf etdirir, dünya iqtisadiyyatına və siyasətinə sürətlə inteqrasiya olunur, Cənubi Qafqaz regionu ilə bağlı beynəlxalq münasibətlərin arxitekturasının formalaşmasına həlledici təsir göstərir. Eyni zamanda, ölkəmiz həm milli, həm də beynəlxalq təhlükəsizliyin təmin olunması üçün bərabərhüquqlu qarşılıqlı hörmət və faydalı əməkdaşlıq prinsiplərinə əsaslanan sabit dünya nizamının mövcud olmasına çalışır.

**Milli təhlükəsizliyin əsasları**

Azərbaycanın milli təhlükəsizliyinin əsasını dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, milli maraqlarının, vətəndaşlarının hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunması və təmin edilməsi təşkil edir.

Milli təhlükəsizliyin əsas obyektlərinə vətəndaş- onun hüquq və azadlıqları, cəmiyyət- onun maddi və mənəvi dəyərləri, dövlət- onun müstəqilliyi, suverenliyi, konstitusiya quruluşu və ərazi bütövlüyü daxildir.

Milli təhlükəsizliyin əsas subyektlərinə isə insanların, cəmiyyətin və dövlətin təhlükəsizliyi maraqlarının və tələbatlarının təmin edilməsi məqsədilə yaradılmış dövlət hakimiyyəti orqanları və digər təhlükəsizlik institutlarını aid edilir.

**Təhlükəsizlik mühiti və beynəlxalq imic**

Hər bir ölkənin milli təhlükəsizlik siyasətinin effektivliyi və uğuru ölkənin təhlükəsizlik mühiti və beynəlxalq imicindən asılıdır. Dövlətin suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, milli maraqlarının təminatı, davamlı inkişafı, vətəndaşlarının sosial-siyasi hüquqlarının və rifah halının təmin

olunması və milli-mənəvi dəyərlərinin qorunmasına təsir edən əsas amillər məhz təhlükəsizlik mühiti və beynəlxalq imicdir.

Azərbaycan müstəqil bir dövlət olaraq beynəlxalq hüququn subyekti kimi, müasir dünyanın bir hissəsidir; BMT, ATƏT, Avropa Şurası, İKT, MDB, GUAM, EKO, TDB və s. kimi böyük və kiçik beynəlxalq, regional təşkilatların üzvüdür. Siyasi, sosial-mədəni baxımdan nüfuzlu beynəlxalq strukturlara hərtərəfli inteqrasiya xətti yürüdür, çoxsaylı beynəlxalq konvensiyalara qoşulmuşdur. Bütün bunlar həm onun təhlükəsizlik mühitinə, həm də beynəlxalq imicinin müəyyənləşməsinə bilavasitə təsir göstərir.

Azərbaycan mühüm coğrafi və geosiyasi önəmi olan bir regionda yerləşir. Onun tutduğu geosiyasi, geoiqtisadi və geostrateji mövqe, yürütdüyü daxili və xarici siyasət dünyanın və regionun aparıcı dövlətlərinin maraqlarına toxunur və onların diqqətindən kənarda qalmır. Bu reallıq həm bölgənin, həm də ölkənin daxili təhlükəsizlik mühitinə birbaşa təsir göstərir. ABŞ və Qərbi Avropanın böyük ölkələri, regionun Rusiya, Çin, Türkiyə, İran kimi böyük dövlətləri və b. geosiyasi oyunçular Cənubi Qafqazda, Orta Asiya və bütövlükdə Avrasiyada öz maraqları çərçivəsində fəal geosiyasət reallaşdırır ki, bu da Azərbaycanın həm regional, həm də beynəlxalq maraqlarından yan keçmir.

Azərbaycanın hərbi-geostrateji durumu, bu sahədə yürütdüyü siyasət və atdığı addımlar həm Qərbin, xüsusilə, ABŞ, AB və NATO-nun, həm də Rusiya, İran və Çin kimi region ölkələrinin diqqət mərkəzində dayanır. Regionun Rusiya, İran və Türkiyə kimi güclü ölkələri ilə həmsərhəd olması, dünyada və bölgədə balanslı, tarazlaşdırılmış xarici siyasət aparması, heç bir hərbi-strateji bloka üzv olmaması, əksər ölkələrlə tərəfsiz əməkdaşlıq etməsi və s. geosiyasi addımları onun təhlükəsizlik mühitinə və beynəlxalq imicinə təsirsiz ötüşmür. Bu mənada, Azərbaycanın davamlı olaraq müstəqillik illərində yürütdüyü dinc tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq siyasəti ona “regionda geosiyasi gərginliyi azaldan və bərabərhüquqlu əməkdaşlıq mühiti yaradan konstruktiv dövlət” imici qazandırmışdır. Bu amil dünya birliyində ölkəmizə etibarlı və sözübütün tərəfdaş imici qazandırmış, Xəzər hövzəsi və Cənubi Qafqazda onun reallaşdırdığı transmilli layihələrə diqqəti artırmış və bölgədəki geosiyasi roluna ciddi maraq yaratmışdır. Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarına malik olması və öz milli sərvətlərini insanların rifahı, dünyada sülhün və iqtisadi inkişafın təmin olunması naminə istifadə etməsi, bəşəriyyətin XX əsrdə artan enerji və nəqliyyat-kommunikasiya ehtiyaclarını təmin etmək məqsədi güdən nəhəng transmilli enerji layihələrinin əsas təşəbbüskarı olması onun müsbət imicini yüksəltmiş və dünyanın əsas güc mərkəzlərinin diqqətini ona cəlb etmişdir.

Lakin ölkəmizin yerləşdiyi önəmli coğrafi və geomühit ona mühüm geosiyasi üstünlüklər və arzu olunan tərəfdaş imici qazandırmaqla yanaşı, həm də ona ciddi rəqiblər qazandırdı, bir sıra özünəməxsus təhlükəsizlik problemləri və təhdidləri ilə üzləşdirmişdir.

**Azərbaycanın milli maraqları və onun çərçivəsi**

Respublikanın əsas inkişaf prioritetləri, ilk növbədə, onun milli maraqlarının formalaşması və təmin olunması ilə bağlıdır. Milli maraqlar öz məzmununa görə ictimai maraqlardan bir qədər fərqlənir. Belə ki, ictimai maraqlar dövlətin daxili siyasətini müəyyənləşdirən qanunlar sistemi ilə bağlıdır və onunla tənzimlənir. Milli maraqlar isə əsasən dövlətin xarici siyasət sahəsinə aiddir və beynəlxalq aləmlə təmasda onun rəsmi fəaliyyətinin əsasını təşkil edir.

Azərbaycanın daxili siyasətində vətəndaşların əsas maraqlarını hakimiyyət qurumları, ictimai-siyasi təşkilatlar və digər yerli strukturlar ifadə edirsə, milli maraqları beynəlxalq aləmdə və ölkə daxilində əsasən Azərbaycan dövləti və onun müvəkkil etdiyi qurumlar həyata keçirir.

Azərbaycanın milli təhlükəsizliyinin bu gün üçün ən əsas problemi və hərbi-geostrateji vəzifəsi illərdir uzanan və sonu görünməyən Ermənistan-Azərbaycan münaqişəsinin həllinə nail olmaq, ölkənin pozulmuş ərazi bütövlüyünü və suveren dövlət hüquqlarını bərpa etmək və bu fonda regionda sülhü və dinc əməkdaşlıq mühitini təmin etməkdən ibarətdir. Ölkənin xarici aləmlə bütün təmaslarında, ikitərəfli və çoxtərəfli münasibətlərində bu problemin müzakirəsi və beynəlxalq hüquq normaları çərçivəsində həlli məsələsi daim diqqət mərkəzində saxlanılır. Bu problem həm də, nəinki təkcə Azərbaycana, onun müstəqil dövlət quruculuğu prosesinə, vətəndaşlarının sabit həyat şəraitinə ciddi zərbə vurmuş, eyni zamanda, həm də 20 ilə yaxın bir dövrdə regionda (Qafqaz, Xəzər-Qara dəniz hövzəsində) dövlətlərarası iqtisadi, siyasi və mədəni əlaqələri pozmuş, ölkələri və xalqları qarşıdurmaya sürükləmiş, onların bir-biri və beynəlxalq aləmlə münasibətlərinə, regional və beynəlxalq inteqrasiya proseslərinə çox ciddi mənfi təsir göstərmişdir. Hazırda Ermənistan-Azərbaycan münaqişəsi- Dağlıq Qarabağ problemi dünyada həllini gözləyən ən çətin və mürəkkəb problemlərdən biri hesab olunur.

Azərbaycanın milli təhlükəsizliyinin həyati əhəmiyyət kəsb edən ikinci əsas məsələsi malik olduğu təbii sərvətləri, respublikanın karbohidrogen və enerji ehtiyatlarını xarici müdaxilə olmadan, özünün müəyyən

etdiyi xarici tərəfdaşlarla birgə işləmək, heç kimdən asılı olmayan, təhlükəsiz və əlverişli yollarla dünya bazarlarına çıxarmaq və əldə olunan gəliri ölkənin inkişafına və digər ehtiyaclarına yönəltməkdən ibarətdir.

Bundan başqa, Azərbaycanın milli maraq çərçivəsinə həm də:

* Ermənistanın işğalının nəticələrinin aradan qaldırılması, öz yurdundan didərgin salınmış qaçqın və köçkünlərin geri qaytarılması və məskunlaşdırılması;

* işğalın bir daha təkrarlanmaması üçün zəruri təhlükəsizlik tədbirlərinin görülməsi, o cümlədən, milli ordunun lazımi hərbi hazırlıq vəziyyətinə gətirilməsi;

* Azərbaycan xalqının milli birliyinin və varlığının, bu xalqa məxsus əsrlər boyu formalaşmış adət-ənənələrin, milli-mənəvi dəyərlərin, dilin, dinin qorunması, yaşadılması və ümumbəşəri dəyərlər hesabına zənginləşdirilməsi;

* ölkədə hüquq normaları və qanunçuluğun, şəxsiyyət azadlığı və hüquqlarının dönmədən təmin olunması, mövcud ictimai-siyasi sabitliyin, vətəndaş cəmiyyəti normalarının, tolerant etnik və dini mühitin qorunması və inkişafı, separatçılıq, siyasi, etnik və dini ekstremizmin aradan qaldırılması;

* dünya azərbaycanlılarının birlik və həmrəyliyinin təmin edilməsi, onların vətənpərvərlik hisslərinin gücləndirilməsi, azərbaycançılıq ideyası ətrafında onların birləşdirilməsi, dünyada yaşayan soydaşlarımızın milli və vətəndaş hüquqlarının təmin edilməsi və s. problemlər də Azərbaycanın milli təhlükəsizliyini təhdid edən spesifik faktorlar hesab oluna bilər.

Məkan əlamətlərinə görə Azərbaycanın milli maraq çərçivəsi:

1. Ölkənin öz ərazisi daxilində təzahür edən;

2. Regional münasibətlərdə, yaxud beynəlxalq məkanda, qonşu ölkələrlə təmasda, hər hansı hökumətlərarası təşkilatlar çərçivəsində və s. şəklində təmsil olunan maraqlar kimi qruplaşdırmaq olar.

Milli maraqlar əsas və yaxud ikinci dərəcəli, daimi, yaxud əvəzlənən, uzunmüddətli, yaxud qısamüddətli maraqlara ayrılır.

Əsas və daimi milli maraqlar bir çox mühüm geosiyasi parametrlərinə- dövlətin beynəlxalq münasibətlər sistemindəki yeri və roluna, nüfuzu və hərbi gücünə, özünün suverenliyini qoruyub saxlamaq və vətəndaşlarının təhlükəsizliyini təmin etmək qabiliyyətinə və s. görə müəyyənləşir.

**Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlər**

Milli təhlükəsizlik sistemi ilə milli təhlükəsizliyin təmin olunması sistemi öz məzmununa görə bir-birindən fərqlənir. Birincisi, maraq və təhdidlərin qarşılıqlı təsiri prosesini əks etdirən funksional nəzəri (konseptual) sistemdirsə, ikincisi milli təhlükəsizliyin təmin olunmasının praktiki məsələlərini həll etməyi nəzərdə tutan orqanlar, vasitələr, müxtəlif təşkilatlar (institusional) sistemidir.

Qeyd edək ki, maraqların həyata keçirilməsi ilə bağlı fəaliyyət zamanı geosiyasi aktorlar- fərdlər, sosial qruplar və dövlətlər arasında bəzi obyektiv ziddiyyətlər meydana çıxır. Lakin maraqların üst-üstə düşən və paralellik təşkil edən digər növləri də olur ki, bunlar öz məzmununa görə pozitiv münasibətlərin yaranmasına şərait yaradır, ictimai və beynəlxalq münasibətlərdə qarşılıqlı anlaşmaya nail olmaq üçün baza rolunu oynayır.

Azərbaycanın milli təhlükəsizliyinə qarşı yönəlmiş təhdidlər müəyyən təsnifat üzrə qruplaşdırılır. Bu təsnifat təhdidlərə qarşı, onların konkret xüsusiyyətlərini nəzərə almaqla təşkilati tədbirlər görməyə lazımi imkanlar yaradır. Təsnifatın əsasında təhlükə mənbəyinin yerləşdiyi yer, təhdidin formalaşma səviyyəsi, xarakteri və s. dayanır.

Təhdidlər təhlükə mənbəyinin harada yerləşməsindən asılı olaraq daxili və xarici təhdidlərə bölünür. Əgər təhdidlər xarici dövlətdən və onun vətəndaşlarından gəlirsə, onlar xarici təhdidlər adlanır. Təhdidlərin mənbəyi dövlətin öz daxilində və onun vətəndaşları ilə bağlıdırsa onlara daxili təhdidlər deyilir.

Formalaşma səviyyəsinə görə təhdidlər potensial və real təhdidlərə ayrılır. Potensial təhdidlər özündə təhlükənin yaranmasını, onun ilkin şərtlərinin formalaşmasını, zərər yetirmək imkanlarını ehtiva edir. Real təhdidlər isə artıq formalaşmış hadisədir və onun zərər yetirməsi üçün bir və yaxud bir neçə faktor çatışmır. Real təhdidlərin təzahür etdiyi zaman milli təhlükəsizliyi təmin etmək sisteminin qarşısında təhdidin kəskinliyini azaltmaq və onu aradan qaldırmaq üçün lazımi tədbirlər görmək vəzifəsi dayanır.

Təhdidlər xarakterindən asılı olaraq təbii, antropogen və sosial təhdidlərə bölünür. Təhdidlərin bu cür növlərə ayrılması daha kəskin təhdidləri məqsədyönlü şəkildə aşkarlamağa, onların qarşısını vaxtında almağa, milli təhlükəsizliklə bağlı fəaliyyətin effektivliyini artırmağa imkan verir.

Ümumi təhlükəsizlik prinsiplərinə və təhdidlərin növünə, miqyasına, onların təhlükəsizlik obyektlərinə təsir vasitələrinə görə müasir dövrdə Azərbaycanın milli təhlükəsizliyinin üzləşdiyi təhdidlər sırasına təhlükəsizlik konsepsiyasında aşağıdakı məsələlər aid edilir:

* Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə qəsdlər;

* qanunun aliliyinə nail olunması, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində dövlət funksiyalarını yerinə yetirməyə qarşı yönəlmiş fəaliyyət;
* separatçılıq, etnik, siyasi və dini ekstremizm;
* terrorçuluq və kütləvi qırğın silahlarının yayılması;
* regional münaqişələr və transmilli mütəşəkkil cinayətkarlıq;
* ölkəmizin enerji infrastrukturuna qarşı fəaliyyət;
* xarici siyasi, hərbi və ya iqtisadi asılılıq;
* iqtisadi qeyri-sabitlik ;
* peşəkar insan ehtiyatlarının çatışmazlığı;
* regional hərbiləşdirmə;
* ekoloji problemlər.

Təhdidlərin bu cür bölgüsü milli təhlükəsizliyin təmin olunması sisteminin təşkilində və onun əsas fəaliyyət istiqamətlərinin müəyyənləşməsində mühüm rol oynayır.

**Milli maraq və milli təhlükəsizlik ölçüləri**

Azərbaycanın milli maraq və milli təhlükəsizliyinin təmin edilməsi bilavasitə onun daxili və xarici maraqlarının düzgün müəyyənləşdirilməsi və onların təmin olunması mexanizmlərinin yaradılmasından asılıdır. Milli maraqların məzmunu, çərçivəsi və parametrləri cəmiyyətin dəyərlərini özündə əks etdirən "milli idealla" müəyyənləşir.

Ümumi şəkildə götürdükdə millətin və xalqın ən mühüm "idealını" ilk növbədə özünüqoruma, özünüyaşatma və davamlı inkişaf (yeniləşmə, təkmilləşmə və s.) maraqları təşkil edir. Məsələn, Azərbaycan öz milli təhlükəsizliyinin çərçivəsini və təmin edilməsi mexanizmlərini 1992-1995-ci illərin "özünüqoruma və özünüyaşatma" durumundan, 1996-cı ildən başlanan və 2010-cu ilə sona çatan "davamlı inkişafa qədərki" keçid dövrünün dinamikasında yarada bilmişdir.

Milli maraq çərçivəsi milli vəzifələrin əhəmiyyətinə və dərəcəsinə görə sıralanır və tez-tez istifadə olunan "həyati əhəmiyyətli maraqlar" ifadəsi ilə ifadə olunur. Azərbaycanın "Milli Təhlükəsizlik Konsepsiyası"nda "həyati əhəmiyyətli mühüm maraqlar" anlayışı öz əksini tapmışdır.

Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında göstərilir ki, milli maraqlar xalqımızın fundamental dəyər və məqsədlərini, habelə, insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusudur və aşağıdakılardan ibarətdir:

* dövlətin müstəqilliyinin və ərazi bütövlüyünün qorunması, onun beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının təmin edilməsi;
* Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması, azərbaycançılıq ideyasının təşviqi;
* vətəndaş cəmiyyətinin formalaşdırılması, insan hüquq və əsas azadlıqlarının təmin olunması;
* demokratik və vətəndaş cəmiyyəti təsisatlarının inkişafı, qanunun aliliyi, asayişin təmini yolu ilə dövlətin funksiyalarının yerinə yetirilməsinin gücləndirilməsi, əhalinin təhlükəsizliyinin qorunması;
* beynəlxalq öhdəlikləri yerinə yetirmək, qlobal və regional təhlükəsizliyə, sabitliyə töhfə vermək üçün beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi;
* bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi, iqtisadi sabitliyin təmin olunması məqsədi ilə daxili və xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması;
* təbii sərvətlərdən tam səmərəli istifadə edilməsi, davamlı iqtisadi inkişaf, ətraf mühitin qorunması, təhsil, elmi və texnoloji potensialın artırılması yolu ilə xalqımızın gələcək inkişafının, əhalinin layiqli həyat səviyyəsinin və fiziki sağlamlığının təmin edilməsi;
* milli özünəməxsusluğun və dünya azərbaycanlılarının həmrəyliyin möhkəmləndirilməsi;
* xalqımızın mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin qorunması, ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi;
* özünüdərk, vətənpərvərlik və milli iftixar hissinin, intellektual potensialın inkişaf etdirilməsi.

**Milli təhlükəsizlik ölçüləri**

Milli təhlükəsizliyin təmin olunması müasir dövrdə istənilən dövlətin daxili və xarici siyasətinin ən prioritet vəzifəsi hesab olunur. Milli təhlükəsizlik ölçüləri və milli maraq çərçivəsi dünyada texniki nailiyyətlərin zəfər çaldığı və qlobal inkişafın dönməz xarakter aldığı XX əsrin sonlarına qədər daha çox ölkələrin müstəqilliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun və suveren dövlət idarəçiliyinin birbaşa xarici hücumlardan, hərbi müdaxilələrdən, cəmiyyət həyatı və şəxsiyyətə qarşı qəsdlərdən, xəfiyyə fəaliyyətindən və s. təhdidlərdən qorunması kimi başa düşülürdüsə, qloballaşmanın vüsət aldığı və ölkələrarası sərhədlərin şəffaflaşdığı müasir dövrdə bu anlayışa həm də:

* Regional münaqişə və transmilli mütəşəkkillik cinayətkarlığı, nəzarətsiz ərazi və silahlı və mütəşəkkil silahlı dəstələrdən qaynaqlanan təhlükəsizlik təhdidlərini;

* dövlətdaxili ictimai həyatın (cəmiyyətin) milli, dini, sosial balansının, ölkənin demoqrafik mühitinin pozulmasını və qanunsuz miqrasiyanı;

* dövlətlərin iqtisadi, siyasi, sosial, ərzaq, enerji, ekoloji, nəqliyyat, maliyyə və milli valyuta təhlükəsizliyinə və makroiqtisadi mühitinə müdaxilə və xarici aktorlardan asılı vəziyyətə salmanı;

* ölkələrin informasiya-kommunikasiya sistemlərinə, ictimai rəyyaratma, ideoloji və mətbuat vasitələrinə total xarici, transmilli müdaxiləni və geosiyasi təsiretməni;

* transmilli beynəlxalq terrorizmi, kütləvi qırğın və digər silahların nəzarətdən kənar yayılması, narkotik maddələrin ticarəti və s. kimi milli təhlükəsizlik sahələrini və s. aid edirlər.

Qloballaşmanın dövlətlərin milli maraqlarının təmin olunması yolunda yaratdığı müasir problemlər hər bir ölkədən öz milli maraqlarını və milli təhlükəsizliyini təmin etmənin xüsusi strategiyasını yaratmağı və onu dönmədən həyata keçirməyi tələb edir.

**Milli təhlükəsizliyin təmin olunmasının əsas vasitələri və resursları**

Milli təhlükəsizliyinin təmin olunması üçün dövlət özünün həm daxili resurslarından, həm də, xarici siyasət vasitələrindən- siyasi, iqtisadi, hərbi, təbliğat və informasiya və s. istifadə edir. Xarici siyasi fəaliyyətin əsas vasitəsi ilk növbədə rəsmi diplomatiyaya qurumları hesab olunur. Diplomatiya xüsusi institutların timsalında və beynəlxalq hüquqa uyğun olan çoxsaylı metod və vasitələrin köməyi ilə dövlətin rəsmi xarici fəaliyyətini təşkil edir və ona rəhbərlik edir.

Dövlətin malik olduğu iqtisadi vasitələr qarşıya qoyulan məqsədlərə nail olmaq üçün iqtisadi resurslardan istifadə etməyi və xarici iqtisadi imkanlardan bəhrələnməyi nəzərdə tutur. Çünki güclü iqtisadiyyata və maliyyə mənbələrinə malik olmaqla dövlətin beynəlxalq aləmdə öz mövqeyini möhkəmləndirməsi mümkündür.

Hərbi vasitələr özündə ordunu, onun sayını, silahlanmanın keyfiyyətini birləşdirən və silahlı qüvvələrdə mənəvi əhval-ruhiyyəni əks etdirən dövlətin hərbi gücü aiddir.

Xarici siyasətin təbliğat və informasiya vasitələrinə isə bütün müasir informasiya vasitələrinin fəaliyyəti və xarici diaspora qurumlarının imkanları daxildir.

Təhlükəsizliyin təmin edilməsində ən çox istifadə olunan daxili resurs və siyasət vasitələri dövlət orqanları və qeyri-hökumət strukturları, siyasi partiyalar, vətəndaş cəmiyyəti institutları, kütləvi informasiya vasitələri, milli elita və s.-dir. Dövlət bu qurumların hər biri ilə milli təhlükəsizlik naminə xüsusi iş aparır və onların bəzi şərtlərini təmin etməklə, imkanlarından milli təhlükəsizliyin təmin olunması istiqamətində istifadə edir.

Azərbaycanın təhlükəsizlik siyasətində daxili sabitlik və sərhəd təhlükəsizliyinin təmin olunması, ölkədaxili miqrasiya, enerji, nəqliyyat təhlükəsizliyi, fövqəladə idarəetmə, ətraf mühitin və əhalinin sağlamlığının mühafizəsi, informasiya təhlükəsizliyi və s. məsələlərin də daim diqqətdə saxlanılmasını tələb edir.

**“Səs”.-**2010.-8 may.-N.81.-S.4-5.

# MÜKƏMMƏL QANUNVERİCİLİK SİSTEMİNİN BANİSİ

**Oqtay ƏSƏDOV,**
Azərbaycan Respublikası Milli Məclisinin Sədri

**Dünya təcrübəsi göstərir ki, hər bir xalqın yaranmış tarixi imkandan bəhrələnərək öz müstəqil dövlətini qurması, ilk növbədə lider amili ilə bağlı olmaqla onun yaradıcı təfəkkürü, siyasi əzmi, yüksək intellekti, qətiyyəti və dövlətçilik səriştəsi sayəsində gerçəkləşir. Bütövlükdə millətin taleyində tarixi dönüşə zəmin yaradan taleyüklü məqamlarda bir daha təsdiqlənir ki, əsl siyasi lider öz cəsarəti, çevik və prinsipial qərarları, ən çətin şəraitdə çıxış yolu tapmaq məharəti ilə seçilən fitri istedada malik insanlardır. Milli tariximizə bu kimi keyfiyyətləri ilə öz adını əbədi həkk etmiş lider Heydər Əliyevdir. Məhz bu nadir tarixi sima XX əsrin sonunda xalqımızı əsrlər boyu can atdığı həqiqi müstəqillik amalına qovuşdurmuş, mütərəqqi tarixi ənənə əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürmüş, onun dayanıqlı inkişafı üçün etibarlı zəmin yaratmışdır.**

Ümummilli lider daim xalqın saf və ali məqsədlər uğrunda mübarizəsinin önündə dayanmış, əlverişli siyasi şansdan böyük ustalıqla bəhrələnmişdir. Heydər Əliyev dühası Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında azərbaycanlıların istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini – müstəqil Azərbaycan dövləti kimi əzəmətli reallığa qovuşdurmuşdur. Sağlığında ümummilli liderlik ucalığına qovuşmuş bu müdrik şəxsiyyət böyük fədakarlıqlar hesabına qurub-yaratdığı dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanın müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir.

Hər bir millətin tarixi inkişafı, qarşıya qoyduğu hədəflərə yetişmək əzmi, ilk növbədə onun malik olduğu milli-mənəvi potensialdan, dəyərlər sistemindən qaynaqlanır. Bu reallıqdan çıxış edən ulu öndər Heydər Əliyev Azərbaycanı qoruyub inkişaf etdirmək, hansısa mərhələdə milli müstəqilliyə qovuşdurmaq üçün ilk növbədə xalqımızın zəngin milli-mənəvi irsini, tarixini, mədəniyyətini, dilini, bir sözlə özünəməxsusluğunu şərtləndirən dəyərlərini qorumağa çalışmışdır. Əslində, ümummilli lider Heydər Əliyevin 1969-cu ilin 14 iyulunda Azərbaycanda siyasi hakimiyyətə gəlişinin ən qabarıq siyasi təzahürü də imperiyanın sərt ideoloji qəlibləri, buxovları şəraitində azərbaycançılıq məfkurəsinin, milli ruhun yüksəlişi, xalqın tarixi kökünə qayıdışı kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsinin real siyasi amilə çevrilməsidir.

Respublika rəhbərliyinə irəli çəkildiyi ilk gündən mövcud nöqsanları açıq-aşkar ictimai müzakirəyə çıxararaq onların həlli yollarını göstərən Heydər Əliyev problemlərin tez bir zamanda aradan qaldırılması üçün lazımi iradə, qətiyyət və prinsipiallıq göstərmiş, intibah prosesinə təkan vermişdir. Bu baxımdan ümummilli liderin Azərbaycan KP MK-nın 5 avqust 1969-cu il tarixli plenumundakı dərin məzmunlu, eyni zamanda tənqidi ruhlu çıxışı sovet Azərbaycanını problemlər məngənəsindən dinamik inkişaf yoluna çıxaran pozitiv prosesin başlanğıcı kimi ehtiramla xatırlanır. Heydər Əliyev plenumda mövcud problemləri konkret şəkildə, çılpaqlığı ilə önə çəkmiş, dövlət idarəçiliyi sistemində formalaşmış regionçuluq, bürokratiya və korrupsiya kimi neqativ tendensiyaların yolverilməz olduğunu demişdir. Ümummilli lider, eyni zamanda çoxsaylı problemlərin həllində bir sıra rəhbər şəxslərin məsuliyyət daşıdığını da açıq bəyan etmişdir.

Ulu öndər keçmiş ittifaqın iqtisadiyyatı üçün əlverişli xammal bazasına çevrilmiş Azərbaycanın yeni inkişaf strategiyasını böyük uzaqgörənliklə işləyib həyata keçirmişdir. Bunun nəticəsi kimi bir sıra əsas göstəricilər üzrə geridə qalmış Azərbaycan qısa müddətdə inkişafının yeni mərhələsinə qədəm qoyaraq keçmiş ittifaqın qabaqcıl respublikalarından birinə çevrildi. Bugünkü müstəqil Azərbaycan dövlətinin iqtisadi-siyasi əsaslarının, milli kadr potensialının formalaşması, strateji əhəmiyyətli sənaye və istehsal müəssisələrinin açılması da məhz ötən əsrin 70-80-ci illərinə təsadüf edir. Ümummilli lider Heydər Əliyevin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri məhz Azərbaycanda inşa olunmuş, bununla da, ölkəmizin gələcək müstəqilliyinin iqtisadi əsası formalaşdırılmışdır.

Ulu öndər Heydər Əliyev kosmopolit ideyaların zehinlərə zorla sırındığı bir dövrdə milli məfkurənin qorunub saxlanılması, habelə azərbaycançılığın ən mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi sahəsində də mühüm tədbirlər həyata keçirmişdir. Heydər Əliyev üçün ana dili azərbaycançılığın təməl prinsipi olmuş, imkan daxilində özü rəsmi nitqlərini Azərbaycan dilində etmiş, bunu bütün rəhbər vəzifəlilərdən də qətiyyətlə istəmişdir. Ulu öndər sovet Azərbaycanında hakimiyyətə gəlişindən dərhal sonra Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyinin keçirilməsi barədə qərar verərək 1969-cu il noyabrın 1-də bu təntənəli tədbirdə totalitar sovet rejiminin tətbiq etdiyi bütün baryerləri aşaraq Azərbaycan dilində çıxış etmişdir. Bununla da, böyük strateq cəmiyyətə milliləşmənin zəruriliyi mesajını vermiş, milli dilə, dəyərlərə bağlı olmağı, tarixi

irsi yaşatmağı ictimai fikrə böyük müdrikliklə aşılamışdır. 1978-ci ildə Azərbaycan SSR-nin konstitusiya layihəsi qəbul edilərkən ulu öndərin Azərbaycan dilinin bu ali sənəddə dövlət dili kimi təsbitlənməsi və qorunub saxlanılması sahəsində nümayiş etdirdiyi qətiyyəti bu məqamda xüsusi xatırlatmaq lazımdır. Mərkəzin nümayəndələri dəfələrlə Bakıya səfər edərək Heydər Əliyevi bu məsələ ilə bağlı fikrindən daşındırmağa səy göstərsələr də, məqsədlərinə nail olmamışlar.

Böyük siyasət ustadının yaratdığı spesifik idarəçilik modelinin üstün cəhətlərindən biri də kadr seçimində sosial ədalətsizliyin aradan qaldırılması – daha çox yüksək mənəvi-əxlaqi keyfiyyətləri, intellektual səviyyəsi və yüksək biliyi ilə fərqlənən gənclərə üstünlük verilməsidir. 1970-ci illərin əvvəllərindən etibarən Heydər Əliyevin hüquqşünas kadrların hazırlanması işinin keyfiyyətini birbaşa nəzarətə götürməsi bunu bir daha təsdiqləyir.

Ulu öndər Heydər Əliyev Azərbaycana birinci rəhbərliyi dövründə respublikanın qanunvericilik sisteminin möhkəmləndirilməsi, bu prosesdə əsas ağırlığı üzərinə götürən ali qanunverici orqanın fəaliyyətinin təkmilləşdirilməsi işinə də xüsusi qayğı ilə yanaşmışdır. Böyük rəhbərin təşəbbüsü ilə həmin dövrdə Azərbaycan SSR Ali Sovetində milli-mənəvi dəyərlərin və mədəni irsin qorunub saxlanılmasına, elmi-intellektual tərəqqiyə xidmət edən mühüm qanunların, qərarların qəbulu xalqda milli oyanışı və özünüdərk hissini gücləndirmişdir.

Keçən əsrin 70-ci illərində Heydər Əliyev respublikanın birinci katibi olmaqla yanaşı SSRİ Ali Sovetinin (VIII-X çağırışlar) deputatı, yuxarı palatanın – ittifaq sovetinin sədr müavini (IX çağırış), habelə Azərbaycan SSR Ali Sovetinin (VII-X çağırışlar) deputatı və rəyasət heyətinin üzvü olmuş, bu imkanlardan xalqımızın mənafeyi naminə layiqincə istifadə etmişdir. Qanunverici orqanla sıx təmasda fəaliyyət göstərən Heydər Əliyev onun cəmiyyət və dövlət həyatındakı müstəsna rolunu düzgün dəyərləndirmişdir. IX, X və XI beşilliklərin proqramlarının təsdiq olunmasında, respublikanın illik büdcələrinin qəbulunda yaxından iştirak etmiş ulu öndər milli mənafeyə əsaslanan parlamentarizm ənənələrinin formalaşmasına çalışmışdır. Azərbaycan SSR Ali Soveti və SSRİ Ali Sovetinin tribunalarından məharətlə istifadə edən Heydər Əliyev rəhbəri olduğu deputat qrupunun Moskvadakı fəaliyyətini də respublikanın mənafeyi baxımından düzgün istiqamətləndirmişdir.

Azərbaycan SSR Ali Soveti Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşdirilən möhtəşəm quruculuq işlərinin mükəmməl hüquqi bazasının formalaşdırılması prosesində yaxından iştirak etmiş, dayanıqlı inkişafa zəmin yaradan mühüm qərarlar qəbul etmişdir. 70-80-ci illərdə icra orqanları ilə parlamentin işinin səmərəli koordinasiyası milli tərəqqi üçün zəruri əsaslar formalaşdırmış, Azərbaycanın gələcək siyasi müstəqilliyinə möhkəm körpü salmışdır. Qürur hissi ilə qeyd etmək lazımdır ki, Azərbaycan Milli Məclisinin hazırkı möhtəşəm binası da məhz Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə inşa olunaraq istifadəyə verilmişdir.

Ulu öndər Heydər Əliyev sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə böyük strateq kimi dövlət müstəqilliyinə zəmin yaradan bir sıra tədbirləri uğurla həyata keçirmiş və bu istiqamətdə ciddi nailiyyətlər əldə etmişdir. Həmin illərdə Azərbaycanda aparılan misli görünməmiş quruculuq işlərini də dövlət müstəqilliyinə təminat yaradan başlıca faktor kimi nəzərdən keçirmək lazımdır. Keçmiş imperiya daxilində hansı qlobal proseslərin getdiyini daha dərindən müşahidə etmək imkanına malik olan Heydər Əliyev Azərbaycanın nə vaxtsa müstəqillik əldə edəcəyini öncədən görərək bunun üçün iqtisadi-siyasi, intellektual baza formalaşdırmışdır. Həmin dövrün statistikasına əsasən Azərbaycan Ukrayna və Rusiya da daxil olmaqla SSRİ büdcəsindən dotasiya almadan öz problemlərini həll etməyə qadir üç respublikadan biri olmuşdur.

XX əsrin sonlarına doğru dünyada cərəyan edən qlobal proseslər fonunda Azərbaycanda geniş vüsət almış milli azadlıq hərəkatı ilə eyni dövrdə xalqda milli heysiyyəti, özünüdərki daha da gücləndirən, milli dövlət rəmzlərinə hörmət təlqin edən genişmiqyaslı addımlar məhz ulu öndər Heydər Əliyevin keçmiş Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına rəhbərlik etdiyi dövrdə atılmışdır. Muxtar respublikanın ali qanunverici orqanının 1990-cı il noyabrın 17-də keçirilmiş birinci sessiyasında Azərbaycanın milli dövlət dirçəlişi prosesinin həyata keçirilməsi məsələsi geniş müzakirə olunmuş və keçmiş Naxçıvan MSSR-in adının dəyişdirilərək Naxçıvan Muxtar Respublikası adlandırılması barədə tarixi qərar verilmişdir. Həmin sessiyada həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin rəmzi olan üçrəngli Dövlət Bayrağının bərpa edilməsi, onun Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında da yekdilliklə qərar qəbul edilmişdir.

Azərbaycan 1991-ci il 18 oktyabr tarixli dövlət müstəqilliyi haqqında Konstitusiya aktında demokratik, hüquqi və dünyəvi dövlət olduğunu bəyan etmiş, ümumbəşəri yolla qarşıya qoyduğu strateji hədəflərə doğru irəliləmək istəyini nümayiş etdirmişdir. Demokratiya və azad bazar iqtisadiyyatı prinsiplərini gələcək inkişaf modeli kimi seçmiş Azərbaycanda hakimiyyətin və bütün təbii sərvətlərin xalqa mənsubluğu, mülkiyyətin bütün

formalarının bərabərliyi, vətəndaşların seçki hüququnun, çoxpartiyalı sistemin təminatı, habelə insan və vətəndaş hüquq və azadlıqlarının ümumi prinsipləri rəsmən elan edilsə də, 1991-1993-cü illərdə rəhbərlikdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması zəminində baş qaldırmış xaotik və ziddiyyətli proseslər – qanunçuluğun, hüquq qaydalarının zəifləməsi, ictimai-siyasi sabitliyin təminatında ciddi problemlərin yaranması, vətəndaşların təhlükəsizliyi üçün real təhdidlərin meydana çıxması, sosial-iqtisadi tənəzzülün dərinləşməsi bu istəyin reallaşmasında ciddi maneəyə çevrilmişdi. 90-cı illərin əvvəllərindən başlayaraq bir tərəfdən Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin genişlənməsi, digər tərəfdənsə hakimiyyətə qeyri-qanuni yolla yiyələnmiş diletant qüvvələrə qarşı ictimai inamsızlığın dərinləşməsi, sosial-iqtisadi tənəzzül, vətəndaş qarşıdurması, xaos və özbaşınalıq, habelə yeni dövrün tələblərinə cavab verən qanunların yoxluğu xalqın demokratik və hüquqi dövlətdə yaşamaq istəyini əlçatmaz ideyaya çevirmişdi.

Belə böhranlı vəziyyətdə xalq çıxış yolunun müdrik rəhbərinin – ulu öndər Heydər Əliyevin hakimiyyət sükanı arxasına qayıtmasında görməsi bir sıra obyektiv reallıqlarla şərtlənirdi. Əksəriyyət başa düşürdü ki, yaranmış ekstremal şəraitdə ölkədə ictimai-siyasi gərginliyi aradan qaldırmaq, qiyamı yatırmaq, qanunsuz silahlı qüvvələri zərərsizləşdirmək, dövlət təsisatlarının normal fəaliyyətini təmin etmək bacarığına malik yeganə lider məhz Heydər Əliyevdir! Həmin dövrdə xalqın ulu öndərə olan böyük sevgi və inamını etiraf etmək məcburiyyətində qalan AXC iqtidarının Heydər Əliyevi acizanə şəkildə Bakıya dəvət etməsi də məhz bu reallıqla şərtlənmişdir.

Ümummilli liderin 1993-cü il iyunun 9-da xalqın təkidli istəyinə səs verərək Bakıya qayıtması isə onun nə qədər qətiyyətli, prinsipial, heç bir riskdən çəkinməyən, dövlətinin taleyinə biganə qalmayan fenomen şəxsiyyət olduğunu bir daha təsdiqləyir. Heydər Əliyevin iyunun 15-də Ali Sovetin Sədri seçilməsi isə böyük strateqin sadəcə hakimiyyətə qayıdışı deyil, eyni zamanda xalqın qurtuluş və özünütəsdiq tarixidir. Bu tarixi qayıdış ilk növbədə Azərbaycanın varlığını, müstəqilliyini, dövlətçiliyini qoruyub saxlamış, ölkəni parçalanmadan, vətəndaş müharibəsindən, düşmən işğalının geniş miqyas almasından xilas etmişdir.

1993-cü ilin 15 iyununda Azərbaycan Ali Sovetinin Sədri seçilmiş ulu öndər Heydər Əliyev ölkədə qanunçuluğun bütün sahələrdə möhkəmlənməsini təmin etməklə yanaşı qanunverici orqanın cəmiyyətdəki nüfuzunu qaldırmış, onun təşəkkülünə, ölkənin ictimai-siyasi həyatının sabitləşməsinə, habelə milli parlamentarizm ənənələrinin inkişafına böyük zəmin yaratmışdır. Həmin iclasda dərin məzmunlu tarixi nitq söyləyən Heydər Əliyev ona göstərilən yüksək etimadı doğrultmağa çalışacağını vurğulamışdır: “Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm”.

Ali Sovetin Sədri kimi qısa müddətdə qurumun cəmiyyətdə nüfuzunu qaldıran, cılız çəkişmə və dartışma meydanına çevrilməsinin qarşısını alan Heydər Əliyev eyni zamanda ali qanunverici orqana yeni ruh və müasirlik gətirmişdir. Ulu öndərin fitri idarəçilik keyfiyyətləri, səlis, rəvan və yüksək məntiqə söykənən nitqi, qətiyyətli mövqeyi, ən çətin situasiyalarda çevik qərarlar qəbul etmək qabiliyyəti hər zaman böyük ehtiramla, rəğbətlə anılır. Bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə qanunların yeni dövrün tələblərinə uyğun müasirləşdirilməsini və dayanıqlı inkişafa zəmin yaradan mükəmməl qanunvericilik sisteminin formalaşdırılmasının zəruriliyini düzgün dəyərləndirən Heydər Əliyev bu məqsədlə parlamentin geniş imkanlarından düzgün bəhrələnmişdir. Müharibə şəraiti ilə əlaqədar ulu öndər ilk növbədə müdafiə sisteminin hüquqi bazasının möhkəmləndirilməsinə diqqət yetirmiş, nizami ordu quruculuğuna xidmət edən qanunların hazırlanmasını və qəbulunu təmin etmişdir. Bu dövrdə “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” 3 sentyabr 1993-cü il tarixli qanun qəbul olundu. Konstitusiyada və müxtəlif hüquqi sənədlərdə dəyişikliklər edildi.

1993-cü ilin 3 oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçilən ulu öndər Heydər Əliyev qanunvericilik təşəbbüsü hüququndan istifadə etməklə bu istiqamətdə əlavə tədbirlərin həyata keçirilməsini təmin etmişdir. Ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə və hərbi sahənin inkişafına yönəlmiş hüquqi sənədlər sırasında 1994-cü il 4 yanvar tarixli “Sərhəd Qoşunları haqqında”, 1994-cü il 8 fevral tarixli “Daxili Qoşunların statusu haqqında”, 1994-cü il 23 sentyabr tarixli “Silahlı Qüvvələrin intizam Nizamnaməsinin təsdiqi haqqında”, 1995-ci il 10 yanvar tarixli “Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyət haqqında Əsasnamənin təsdiqi haqqında” qanunlar xüsusi əhəmiyyət daşımışdır.

Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, müstəqil Azərbaycanda sivil parlamentarizm ənənələrinin formalaşması da məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 1995-ci ilin 12 noyabrında Konstitusiyanın ümumxalq referendumuna çıxarılması ilə paralel şəkildə Azərbaycan Respublikası Milli Məclisinə ilk demokratik, azad seçkilərin keçirilməsi təmin edilmişdir. Müstəqil Azərbaycanın tamamilə şəffaf şəraitdə formalaşmış I çağırış Milli Məclisi ilk gündən fəaliyyətini demokratiya, çoxpartiyalılıq, plüralizm,

qanunun aliliyi prinsipləri üzərində qurmuş, çevik və məhsuldar fəaliyyətə başlamış, milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması naminə gərgin çalışmış, ictimai etimadı doğrultmağa səy göstərmişdir. İnsan hüquq və azadlıqlarının müdafiəsi, qanunun aliliyinin təmini məqsədilə aparılan islahatların əsasında inkişaf etmiş dövlətlərin hüquqi dövlət quruculuğu təcrübəsi, ümumbəşəri demokratik prinsiplər, Azərbaycan xalqının dövlətçilik tarixi və ənənələri dayanmışdır.

Qanun yaradıcılığı prosesində dünyanın aparıcı demokratik ölkələrinin təcrübəsindən bəhrələnən Milli Məclis Azərbaycanın beynəlxalq nüfuzunun daha da möhkəmlənməsi üçün üzərinə düşən vəzifələri inamla həyata keçirmişdir. 1993-cü il oktyabrın 10-dan 2002-ci il dekabrın 30-dək Milli Məclisdə qəbul edilmiş 1715 qanun və qərardan 975-nin məhz ümummilli lider Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında parlamentə təqdim olunması da böyük öndərin bu sahədəki fəaliyyətinin gerçək mahiyyəti barədə əyani təsəvvür yaradır.

Milli Məclis qanunların təkmilləşdirilməsi mərhələsində təkcə beynəlxalq təcrübəni öyrənib presedent kimi tətbiq etməklə kifayətlənməmiş, eyni zamanda milli maraqları əsas tutmaqla müxtəlif beynəlxalq konvensiya və sazişləri ratifikasiya etmişdir. Konstitusiyamızın 151-ci maddəsinə əsasən Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa beynəlxalq müqavilələr tətbiq edilir. Bu maddə Azərbaycan Konstitusiyasının liberallığını və demokratikliyini bir daha sübuta yetirməklə yanaşı həm də son 15 ildə ölkədə milli qanunvericiliyin mütərəqqi standartlara uyğunlaşdırılmasına yaxşı imkanlar açmışdır. Əsas Qanunumuzda əksini tapmış insan hüquq və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilmişdir.

2000-ci ildə keçirilmiş ikinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər də ölkədə demokratiyanın inkişafı, hüquqi dövlət quruculuğu yolunda irəliyə doğru mühüm addım olmuşdur. Seçicilərin yüksək fəallığı şəraitində ikinci çağırış Milli Məclisə ölkəmizdə fəaliyyət göstərən 9 siyasi partiyanın təmsilçiləri seçilmiş, Azərbaycanın aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası böyük qələbə qazanaraq deputat mandatlarının əksəriyyətini əldə etmişdir. Məhz ikinci çağırış Milli Məclisin fəaliyyəti dövründə 2001-ci il yanvarın 17-də ölkəmiz Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edilmiş, beləliklə, milli qanunvericiliyin Avropa standartlarına uyğun təkmilləşdirilməsi sahəsində keyfiyyətcə yeni mərhələnin əsası qoyulmuşdur. Xüsusi xatırlatmaq lazımdır ki, 2000-2003-cü illərdə Azərbaycanın AŞ PA-dakı parlament nümayəndə heyətinin rəhbəri olmuş cənab İlham Əliyev təşkilat çərçivəsində Azərbaycanın milli maraq və mənafeyini layiqincə təmsil etmiş, Avropa məkanında sayılıb-seçilən nüfuzlu siyasətçilərdən birinə çevrilmişdir.

Ölkə rəhbərliyinin mükəmməl milli qanunvericilik sisteminin formalaşdırılması istiqamətindəki fəaliyyəti eyni zamanda Milli Məclisin beynəlxalq əlaqələrinin genişlənməsinə, keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə təkan vermişdir. Ötən dövrdə Milli Məclisdə dünyanın 70-dək ölkəsinin parlamenti ilə əlaqələr üzrə işçi qrupları yaradılmış, qanunverici orqanın beynəlxalq əlaqələri genişlənmişdir. Azərbaycanın parlament nümayəndə heyəti tez-tez xarici ölkələrdə işgüzar səfərlərdə olur, habelə Milli Məclisdə xarici ölkələrin siyasi və dövlət xadimləri, parlament üzvləri ilə görüşlər təşkil edilir. Bütün bunlar həm də qanun yaradıcılığı sahəsində təcrübə və informasiya mübadiləsi baxımından əhəmiyyətlidir. Azərbaycan parlamenti ölkənin beynəlxalq əlaqələrinin inkişafına layiqli töhfəsini verməklə yanaşı, ölkənin demokratik imicinin yüksəlməsində də öz sözünü deyir.

2003-cü ilin oktyabrından ulu öndərin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev də qanun yaradıcılığı prosesinə dövlət quruculuğunun mühüm sahələrindən biri kimi yanaşmış, Milli Məclisin müasirləşməsinə, maddi-texniki bazasının yüksəlməsinə, iş üsul və vasitələrinin daha da təkmilləşməsinə çalışmışdır. 2005-ci il noyabrın 6-da keçirilmiş üçüncü çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər Azərbaycan xalqının Heydər Əliyevin siyasətinə inamının, hörmət və ehtiramının əyani göstəricisi olmuşdur.

Dövlət başçısının xüsusi tapşırığı və qayğısı ilə Azərbaycan Respublikası Milli Məclisinin inzibati binası ən müasir tələblər səviyyəsində əsaslı təmir olunmuş, onun yeni korpusu inşa edilmiş, eksteryeri və interyeri əsaslı şəkildə müasirləşmiş, ətraf ərazidə genişmiqyaslı abadlıq-quruculuq işləri aparılmışdır. Nəticədə ulu öndərin yadigarı olan bu möhtəşəm kompleks hazırda paytaxt Bakının ən modern və görkəmli tikililərindən biri kimi şəhərimizin qonaqlarında da yüksək təəssürat doğurur. Xüsusi vurğulamaq istərdik ki, ulu öndər Heydər Əliyevin dövlət və xalq qarşısında misilsiz xidmətlərinin obyektiv dəyərləndirilməsi, xatirəsinin əbədiləşdirilməsi məqsədilə Milli Məclisin foyesində büstü qoyulmuş, eyni zamanda parlamentdə Heydər Əliyev xatirə zalı yaradılmışdır.

Milli qanunvericilik sisteminin təkmilləşdirilməsi prosesinə xüsusi qayğı ilə yanaşan dövlət başçısı İlham Əliyevin təşəbbüsü əsasında son 6 ildə ölkə həyatı üçün mühüm əhəmiyyət kəsb edən çoxlu sayda qanun və qərarlar qəbul edilmiş, parlamentin ölkənin ictimai-siyasi həyatında rolu daha da yüksəlmişdir. Üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin sessiyalarının yekunları göstərir ki, bu gün parlamentdə həyata vəsiqə alan qanunlar hüquqi bazanı möhkəmləndirməklə yanaşı Azərbaycan hakimiyyətinin ölkənin kompleks inkişafına dair həyata keçirdiyi siyasi kursa da töhfələr verir.

Müstəqil Azərbaycanın sürətli sosial-iqtisadi inkişaf mərhələsinə qədəm qoyması və bütövlükdə beynəlxalq aləmə inteqrasiyasının güclənməsi bir sıra yeni qanunvericilik aktlarının qəbulunu, əvvəllər qəbul olunmuş qanunlara əlavələrin və dəyişikliklərin edilməsini zərurətə çevirir. Bu baxımdan qətiyyətlə demək olar ki, üçüncü çağırış Azərbaycan Milli Məclisinin ötən dövrdəki fəaliyyəti müsbət və uğurlu olmuşdur. 5 ilə yaxın vaxtda Milli Məclis səmərəli işləmiş, yüzlərlə qanun və qərar, həmçinin müxtəlif qanunlara əlavə və dəyişikliklər qəbul olunmuşdur. Beynəlxalq müqavilə və konvensiyalar ratifikasiya edilmiş, bir sözlə ölkəmizin qanunvericilik bazası daha da təkmilləşdirilmişdir.

2006-cı il oktyabrın 2-də Milli Məclisin payız sessiyasının açılışında iştirak edən Prezident İlham Əliyev ali qanunverici orqanın hüquqi dövlət quruculuğu sahəsindəki fəaliyyətini yüksək qiymətləndirmişdir: "Bu gün çox gözəl və əlamətdar bir gündür. Həm Milli Məclis öz işinə başlayır, eyni zamanda, Milli Məclisin binası tam yeni görkəm almışdır. Həm xarici görünüşü, həm də daxili interyeri ən yüksək standartlara cavab verir. Burada deputatlar üçün çox gözəl iş şəraiti yaradılmışdır. Qısa müddət ərzində əsaslı təmir işləri aparılmışdır. Bu gün bu gözəl salonda işləmək, əlbəttə, çox rahatdır və əminəm ki, deputatlarımız üçün çox uğurlu olacaqdır. İndi Azərbaycanda gedən abadlıq quruculuq işləri bütün sahələri əhatə edir, binalar abadlaşır, yeni xiyabanlar salınır, inzibati binalar təmir olunur. Biz hamımız istəyirik ki, təmir olunmuş bütün binalar ən yüksək standartlara cavab versin. Əminəm ki, Milli Məclisin fəaliyyəti Azərbaycanın hərtərəfli inkişafı üçün öz töhfəsini verəcək və iş şəraitinin yaxşı olması, Milli Məclis binasının yeni, müasir avadanlıqla təchiz olunması əlbəttə ki, işin səmərəliliyini də artıracaqdır".

2007-ci il noyabrın 3-də isə Milli Məclisin tarixində yeni bir əlamətdar hadisə baş verdi – parlamentin inzibati binasının 15 mərtəbədən ibarət yeni korpusunun təməlqoyma mərasimi keçirildi. Prezident İlham Əliyevin göstərişi ilə dünya standartları səviyyəsində inşa olunan bina vaxtından əvvəl təhvil verildi. Ötən il sentyabrın 25-də parlamentin yeni korpusunun istifadəyə verilməsi mərasimində iştirak edən dövlət başçısı görülən işləri yüksək dəyərləndirdi. Bəli, bu gün ölkənin qanunvericilik orqanında deputatlarımızın ən yüksək standartlara cavab verən iş şəraitində daha məzmunlu qanun yaradıcılığı, xalqımızın maraqlarına xidmət edən səmərəli fəaliyyəti üçün hər cür imkan yaradılmışdır.

Azərbaycan dövlətinin xilaskarı və qurucusu kimi əbədiyaşarlıq zirvəsinə yüksəlmiş Heydər Əliyevin böyük uzaqgörənliklə formalaşdırdığı parlamentarizm ənənələri son illərdə möhkəmlənmiş, sivil ölkələrin təcrübəsinin pozitiv elementləri ilə zənginləşmişdir. Bu gün hüquqi, demokratik dövlət quruculuğu prosesində yaxından iştirak edən Milli Məclis ölkə həyatının müxtəlif sahələrində ictimai münasibətləri tənzimləyən mütərəqqi ruhlu qanunlar, qərarlar qəbul edir, ölkəmizin milli maraqları ilə bağlı məsələlərdə daim prinsipial, qətiyyətli mövqe göstərir. Eyni zamanda Heydər Əliyev ideallarına sadiq qalaraq hər bir məsələdə məhz ölkə vətəndaşlarının mənafeyini uca tutur, yeni qanunların insanların maraqlarına maksimum dərəcədə cavab verməsinə çalışır.

Qarşıdan Azərbaycan üçün daha məsuliyyətli mərhələ – müstəqil Azərbaycan Respublikasının Milli Məclisinə IV çağırış seçkilər gəlir. Şübhə yoxdur ki, növbəti parlament seçkiləri də Heydər Əliyev dühasının mütərəqqi ənənələrinə uyğun təşkil olunmaqla tamamilə demokratik, azad və ədalətli keçəcək, ölkə vətəndaşlarının prinsipial iradəsi əsasında formalaşacaq Milli Məclis qarşıdakı müddətdə də ölkənin hərtərəfli tərəqqi yolunda bütün səy və imkanlarını səfərbər edəcəkdir.

**"Azərbaycan"**.-2010.-9 may.-N 100.-S.2.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MÜSTƏQİLLİK MƏFKURƏSİ

**Murtuz ƏLƏSGƏROV,**
Milli Məclisin deputatı,
YAP Sədrinin müavini

**Hər xalqın dirçəlişi, dünya arenasında öz sözünü deməsi, XXI əsrin sürətlə qloballaşan dinamik strukturuna hansı dərəcədə adaptasiya olunmasından xeyli dərəcədə asılıdır. Bu zaman əsas məsələ millətin bütün təbəqələrinə xitab edən inteqrativ ideyanın, yəni əsl milli məfkurənin mövcudluğu və dayanıqlılığı mühüm əhəmiyyət kəsb edir.**

Yaxın tarixi təcrübəmiz real şəkildə sübut etdi ki, əgər müstəqillik həqiqi mənada xalqa xidmət edirsə millətə öz milli həyatını sərbəst, özünəməxsus şəkildə qurmaq imkanı verirsə, yalnız bu halda o, milli inkişafın ən müqəddəm şərti hesab olunur. Ümummilli lider Heydər Əliyevin vaxtilə söylədiyi "Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm" deyimini bu gün də həyəcansız xatırlamaq mümkün deyil. Ulu öndərin bu həyat manifesti bizdə ölçüyəgəlməz qürur hissi doğurur, çünki bu optimizmdə onun rəhbərliyi ilə milli varlığımızın taleyüklü problemlərinin həlli yolunda atılan uğurlu addımları, milli tərəqqiyə mane olan neqativ əyintiləri vaxtında təmkin və qətiyyətlə aradan qaldırmaq əzmi və bacarığı, elin qüdrətindən mayalanan milli təfəkkürün yaradıcı potensial təcəssümünü tapmışdır. Məhz buna görə Heydər Əliyevin müstəqillik konsepsiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurlar fonunda xüsusi aktuallıqla səslənir.

Ümummilli lider Heydər Əliyev özünün bütün siyasi karyerası boyu xalqımızın müstəqilliyə yetmək istəyini dərindən duymuş və müdafiə etmiş, bu taleyüklü milli problemin məzmun və mahiyyətinə dərindən nüfuz etmiş, bu amalı özünün fəaliyyət kredosuna çevirmişdir. O, istər dərin məzmunlu çıxışlarında, istərsə də xalqla keçirdiyi görüşlərdə səsləndirdiyi ideyalarla müstəqillik konsepsiyasının nəzəri-praktiki əsaslarını yaratmışdır. Bu konsepsiyada milli dövlətçilik ideyaları ilə həmin ideyaları həyata keçirən müdrik siyasətin obrazının dialektik vəhdətini görürük.

Şablon düşüncə tərzini hər zaman kəskin tənqid edən Heydər Əliyevin müstəqillik konsepsiyası mühüm nəzəri-praktik model kimi milli reallıqlarımızın və bu reallıqların xarici faktorlarla şərtlənməsinin analitik, yaradıcı dərkinin məhsuludur.

Bəs Heydər Əliyevin müstəqillik konsessiyasının həmişəyaşarlığı və həyatiliyi nədədir? Bunun nəzəri fikir tariximizdə yerini və önəmliliyini şərtləndirən amillər hansılardır?

Birincisi, özünün müstəqillik konsepsiyasını işləyərkən ulu öndər konkret və real cəmiyyətin iqtisadi, siyasi, sosial və mənəvi-əxlaqi sahələrinin bütün kompleks problem və qayğıları ilə real Azərbaycan gerçəkliyindən çıxış edirdi. Lakin o, həmişə "qlobal düşünüb lokal hərəkət etmək lazımdır" prinsipinə riayət edərək Azərbaycan xalqının müstəqilliyinin qorunmasında dünya hadisələri məcrasında həll etməyə çalışmışdır. Təcrübəli dövlət başçısı diplomatiyanın belə bir ümdə prinsipindən çıxış etmişdir ki, daxildə aparılan nadan və səriştəsiz siyasət ölkənin nəinki dünya birliyinə daxil olmasına mane olur, daha çox məsələn, Azərbaycanın nümunəsində götürsək xaricdə onun başına gələn müsibətlərə laqeyd münasibət yaradır. Xalqımız cəbhəçilərin hakimiyyətdə olduğu dövrdə ölkəmizdə baş verənlərin timsalında bunun şahidi olmuşdur. Dünya proseslərindən kənarda qalmağın xalqın tarixi şüuruna, onun milli identifikasiyasına vurduğu mənəvi ziyanı başa düşmək çətin deyil. Daxildə isə bu, xalqın etimad hissini öldürmək, dövlətçiliyinə olan inamını şərəfsizcəsinə qırmaq deməkdir. Bu mənada Heydər Əliyevin əqidəsincə, milli müstəqillik millətin mədəniyyətini, iqtisadiyyatını, elmini, incəsənətini inkişaf etdirməklə özünürealizə və özünütəsdiq üçün şərait yaratmaq və bununla başqa dövlətlərdən asılılığı minimuma endirmək deməkdir, çünki prinsipcə bütün dünya dövlətləri inteqrasiya şəraitində bir-birilərindən asılıdır.

İkincisi, ümummilli liderin müstəqillik konsepsiyasından belə görünür ki, milli müstəqillik millətin hər bir nümayəndəsinin şüurunda və psixologiyasında öz millətinin keçmişi, bugünü və gələcəyi barədə həqiqətləri dərk etmədən mümkün deyil. Heydər Əliyevin nəzərincə müstəqillik xalqın mənəviyyatını qorumaq deməkdir. Bir mənəvi hadisə kimi o, daim hər bir vətəndaşın milli şüurunda möhkəm yer tutmalıdır. Onun müstəqillik tariximizə düşmüş məşhur "91″-lərin müraciətinə verdiyi cavabların tezisləri ilə tanışlıq deməyə əsas verir ki, ölkənin önəmli ziyalılarının müraciətlərinə cavabı xalqın müstəqilliyinin vacibliyini dərk edən siyasətçinin mənəviyyat seçimiydi, milli reallığı fəlsəfi idrak səviyyəsində düzgün və analitik qiymətləndirməyin bariz nümunəsidir. Müraciətə cavabın başlıca leytmotivi belədir: artıq belə yaşamaq olmaz, xalq sosial-siyasi fəlakətdən xilas olmalıdır.

Üçüncüsü, ümummilli liderin müstəqillik konsepsiyasının strukturunda Vətən, dövlətçilik, suverenlik, vətənpərvərlik anlayışları önəmli yer tutur. Vətənimizin taleyi hər bir soydaşımızın taleyi olmalıdır, belə olmasa milli müstəqilliyi qorumaq, onu möhkəmləndirmək mexanizmi zəif olar. Müstəqilliyimizin taleyindən söhbət açarkən ingilis filosofu Arnold Toynbinin bu sözlərini xatırlamalı oluruq: "Biz elə bir dövrdə yaşayırıq ki, tarix hamımıza meydan oxuyur". Həqiqətən də, Azərbaycanın müstəqilliyi qarşısında tarixi məsuliyyəti dərk edərkən ən yeni tariximizdə əslində dövlətçiliyin olduqca təhlükəli dövrü kimi qiymətləndirilən 1991-1992-ci illərdə və 1993-cü ilin birinci yarısında tüğyan etmiş siyasi, iqtisadi, hərbi anarxiyanı unutmaq olmur. Bu, müstəqillik tariximizin elə məqamıdır ki, bütün dövrün tədqiqatçıları bu problemə labüdən toxunmalı olacaqlar. Ulu öndər o dövrdəki vəziyyəti realistcəsinə qiymətləndirərək belə bir haqlı nəticəyə gəlmişdi ki, 1991-1993-cü illər Azərbaycanın müstəqilliyi tarixində nəinki itirilmiş illər hesab olunur, həm də bu illərdə Azərbaycan "ölüm, ya olum" dilemması qarşısında qalmışdı. Məlumdur ki, hələ klassik alman fəlsəfəsinin baniləri millətlərin tarixi inkişafını dövlət quruluşu ilə bağlayırdılar. Azərbaycan xalqının müstəqilliyi barədə dövlətçilikdən və suverenlikdən kənarda hər hansı söhbət predmet məzmunundan məhrumdur. Xalqın dünya birliyi tərəfindən tanınmış dövləti olmasa, onun öz müstəqilliyini müdafiə etməyin hüquqi imkanları da məhdud olur. Buna görə də, Azərbaycan dövlətçiliyinin təkmilləşdirilməsi və suverenliyinin möhkəmləndirilməsi, eyni zamanda xalqın milli müstəqilliyinin müdafiəsinin əsaslarının möhkəmləndirilməsi deməkdir. "Azərbaycan Respublikası milli dövlətçilik quruculuğu yolunda müvəffəqiyyətlər qazanaraq şərəfli gələcək istiqamətində inamla addımlayır" – ulu öndərin bu sözlərində mühüm bir ideya durur: milli dövlətçiliyi qorumaqla, möhkəmləndirməklə xalq özünün müstəqilliyinin möhkəmləndirilməsi üçün müstəsna təminat yaradır. Bu hadisələr bir daha belə bir tarixi həqiqəti üzə çıxardı ki, böhranlı anlarda xalqlar və onların liderləri bir qayda olaraq tarixin sınaqlarından çıxmış milli təcrübəsinə müraciət etməli olur. İntensiv cərəyan edən transformasiya prosesləri xalqların ənənəvi təcrübəsinə yenidən baxmağı tələb edir.

Bu gün aydın olur ki, cəmiyyətin ənənəvi təcrübəsinin potensialı zamanın sərt tələblərinə cavab verməyə hazır deyil və xalqlar labüd olaraq qaçılmaz seçim qarşısında qalmışdır: ya millətin yaradıcı potensialını artırıb yeni reallıqların mürəkkəbliyinə uyğun həyat keyfiyyətini formalaşdırmaq, ya da mədəniyyətin dərin qatlarında durğunluq keçirən dəyərlərlə kifayətlənib qloballaşmanın tələbləri qarşısında təslim olmaq. Bunlar dövlətçiliyin möhkəmləndirilməsinin, vətənin gələcəyini qorumağın mühüm sosial-ideoloji təminatıdır. Ona görə də Heydər Əliyevin müstəqillik konsepsiyasında "Vətən" kateqoriyası mücərrəd anlayış olmayıb, övladlarının ölkəsinin nemətlərindən azad və bərabər bəhrələnən suveren Azərbaycan vətəndaşlarının məkanı kimi təqdim edilir. Hər bir xalqın yaşadığı torpaq onun ruhi beşiyidir, çünki vətən hissi özündə millətin mənəvi-əxlaqi dəyərlərini ehtiva edir. Bu gün insanlarımızın vətənpərvərlik hissi, onların öz doğma etnik beşiyinə ülvi məhəbbəti yeni dünyagörüşü sisteminin təməlini təşkil edir.

Ulu öndər millətin mənəvi və əxlaqi dayağı kimi, onun sosial yaddaşının mühafizəçisi və mənbəyi olan tarixin ən yüksək rolunu vətənpərvərliyin, vətən amalının formalaşmasında görürdü. Tarixi unutqanlıq millətin ruhunu öldürür, onun şərəf və ləyaqətinə ziyan vurur. Milli tariximizi bilmədən, keçmişimizə pozitiv yanaşmadan, tarixən itirdiklərimizi tənqidi dərk etmədən və əldə etdiklərimizin qədrini bilmədən, eynilə də tarixi hadisələr və faktlardan razılıq hissi, yaxud məyusluq keçirmədən özündə vətənpərvərlik duyğusunu tərbiyə etmək, ulu babalarımızın pak adını və nəcib işlərini təhriflərdən və qarayaxanlardan qorumaq mümkün deyil. Özünün ictimai görüşlərində Heydər Əliyev belə bir düzgün metodoloji nəticəyə gəlir ki, özünüdərk çərçivəsində millət Vətən tarixinin bütün mühüm tarixi fakt və hadisələrinə yetkin vətəndaşlıq münasibətini müəyyənləşdirməli, tarixi prosesin məntiqinə ardıcıl riayət edərək dəyərlərə yeni düşüncə mövqeyindən baxmalı, özü də tarixə heç bir siyasi məqsədəuyğunluq ünsürləri daxil etməməlidir. Elə buna görə də təsadüfi deyil ki, özünün müstəqillik konsepsiyasında vətənin taleyi üçün məsuliyyət hissini mühüm struktur elementi kimi təqdim edir. Ulu öndər deyirdi: "Biz, yəni Azərbaycan xalqı, böyük imtahan içindəyik və bu imtahandan ləyaqətlə çıxmalıyıq. Hər bir azərbaycanlı əgər onun qəlbində doğrudan da azərbaycanlı hissiyyatı varsa, nəbzi Azərbaycan xalqının ümumi nəbzi ilə həmahəng vurursa bu yolla getməlidir". Ölkəmizin ərazisində yaşayan hər bir millət və xalq vətən qarşısındakı vəzifəsini aydın dərk edib öz fəaliyyətini onun çiçəklənməsinə istiqamətləndirməlidir. Çünki Azərbaycan Respublikası onların hamısı üçün vətən ocağıdır. Heydər Əliyev vətənçilik və vətənpərvərlik ideyalarının müstəqil Azərbaycanın gənclərinin düşüncəsində möhkəm yer tutmasının müstəsna əhəmiyyətini qeyd edirdi: "Siz də (gənclər – müəllif) Azərbaycan xalqına xidmət edərək… vətənpərvərlik hissi ilə yaşayaraq özünüzü qəhrəman kimi, cəsur, qüdrətli bir insan kimi formalaşdırmalısınız və qarşıdan gələ biləcək bütün çətinliklərə hazır olmalısınız". Ulu öndərin "Vətəndaş – Milli Ordu – müstəqillik" triadası mühüm əxlaqi mahiyyət daşıyır. O, xalqını inandıra bilmişdi ki, güclü Milli Ordunun yaradılması müstəqilliyin ləyaqət və şərəf işidir.

Heydər Əliyevin müstəqillik konsepsiyasının yaşarlılığı və müasirliyi ondadır ki, mücərrəd seyrçilikdən uzaqdır. Müasir qlobal reallıqları düzgün qiymətləndirən ulu öndər Azərbaycan xalqının müasir sivilizasiyada özünütəsdiqi məsələsinin həllində milli ideologiyanın rolunu xüsusi qeyd edir. Məlumdur ki, qloballaşma dövlətlərin sabit inkişafı, ərazi bütövlüyü və idarəetmə sistemlərinin rəvan işləməsi, iqtisadi-siyasi inteqrasiyada dövlətlərin, xüsusilə yeni demokratiyaların identikliyi kimi həyati problemləri ciddi təsirlərə məruz qoyur. Lakin bu prosesdə milli mənliyin identikliyini qoruyub saxlayan çox mühüm sarsılmaz ideoloji silah azərbaycançılıqdır. Azərbaycanın müstəqilliyinin qorunub möhkəmlənməsinin labüd ideoloji təməli və təminatı ölkənin hər bir vətəndaşının özünü əsl azərbaycanlı hiss etməsi, azərbaycanlılara məxsus şüur ilə hərəkət etməsidir. Soydaşlarımızın mənlik ruhunun saxlanmasında, onların dünya sivilizasiyasında bir millət kimi özünütəsdiqində azərbaycançılıq ideologiyasının danılmaz rolunu dəfələrlə vurğulayan ulu öndər bu ideologiyanı heç bir fikir müxtəlifliyinə məruz qoymamağı tövsiyə etmişdir. Ona görə də, dövlətçilik, vətənçilik kimi fenomenlər azərbaycançılıq ideologiyasından bəhrələnməli və bunlar da öz növbəsində azərbaycançılığın sosial-milli məzmununun saflığını qorumalıdır. Maarifçilik fəlsəfəmizin tarixi-mənəvi dəyərlərindən bəhrələnmiş ümummilli lider vətən, millət və milli dövlət anlayışlarını azərbaycançılıq ideyası çərçivəsində vəhdətdə götürərək bu sintezi milli bütövlüyün təmin edilməsi, onun həmrəylik ruhunda inkişaf etdirilməsinin mühüm sosiomədəni mexanizmi kimi işləmişdir. Azərbaycançılıq ideyası müharibə gedən ölkəni fəlakətdən çıxarmaq üçün millət və cəmiyyət qarşısında həmrəy qüvvələri birləşdirmək simvoluna çevrilmişdi. Ulu öndərin bilavasitə təşəbbüsü ilə Bakıda keçirilmiş dünya azərbaycanlılarının qurultayı da göstərdi ki, həmrəylik fenomeni bütün dünyadakı soydaşlarımızın milli inkişafı üçün misilsiz sərvətdir. O, soydaşlarımıza daim belə bir əqidəni aşılayırdı ki, tariximizdə ağır səhifələr və böhranlı məqamlar az olmayıb, amma ulu babalarımız ruhdan düşməmişlər. Onlar öz qeyrətinə güvənərək qüvvələrini bir yerə toplamış, öz əxlaqını və simasını itirməmişlər, özlərini ləyaqətlə qorumuşlar. Ona görə də biz tariximizə olduğu kimi yanaşaraq düşmən üzərində qələbəyə köklənən tarixi həqiqətə xidmət etməliyik.

Ümummilli lider həmişə deyirdi ki, biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik. Bununla bağlı Heydər Əliyevin milli-mənəvi dəyərlərin qorunub saxlanması, inkişaf etdirilməsi haqqında 13 avqust 2001-ci il tarixli bəyanatı müstəsna əhəmiyyət kəsb edir. Bu bəyanat hər şeydən əvvəl azərbaycançılıq ideologiyasına sadiq qalan xalqı öz tarixi köklərinə, əcdadlarının yaratdığı milli-mənəvi dəyərlərə daha sıx bağlı olmağa çağırır.

Deyilənlərlə bağlı ulu öndərin müstəqillik konsepsiyası barədə çoxlu önəmli fikirlər və mülahizələr söyləmək mümkündür. Bu, əslində monoqrafik bir mövzu olub, tədqiqatçıları dərindən düşündürməlidir. Lakin məqalə çərçivəsində məhdudluğa baxmayaraq bir daha milli liderlik probleminə toxunmaq istərdik. Heydər Əliyev bir çox çıxışlarında şəriştəsiz, xalqdan uzaq "liderləri" hakimiyyət üçün barışmaz qüsur saymışdır.

Heydər Əliyevin liderliyi onun müstəqillik konsepsiyası ilə üzvi bağlıdır, çünki bütövlükdə hakimiyyəti idarə etmək konsepsiyası nə qədər yüksək nəzəri-praktik səviyyədə işlənsə də, bacarıqlı lider olmadan onu rasional həyata keçirmək mümkün deyildir. Vaxtilə De Qoll demişdir ki, "Böyük işləri heç zaman sözçülüklə başa çatdırmaq olmayıb". Heydər Əliyev intellekti xalq məfkurəsinin qaynaqlarından bəhrələnən, daha mürəkkəb, dinamik reallıqlarımızın mənimsənilməsi və dərkinin qüdrətli nəticəsi, siyasətçi şəxsiyyətinin özünütəsdiqinin vacib vasitəsidir. Ulu öndərin dövlətçilik fəaliyyətinin timsalında aydın oldu ki, müstəqilliyin möhkəmləndirilməsinə yönəlmiş milli inkişaf siyasətini yalnız intellektual düşüncə gərginliyi sayəsində reallaşdırmaq mümkündür. Real praktika da sübut etdi ki, məhz dərin tarixi təcrübəyə və geniş nəzəri bilik diapazonuna malik dövlət adamları çox zaman bənzəri olmayan, yalnız milli reallıqları dərindən başa düşdükləri təqdirdə məsuliyyətli tarixi qərarlar qəbul edirlər. Tarixi həqiqət düşünən fərdin mənlik şüurunun formalaşmasında müstəsna rol oynayır, o, yüksək məsuliyyət hissilə dərk edilir. Belə bir keyfiyyət liderlik düşüncəsinin inkişafı üçün vacib şərtlərdən biridir, çünki o, tarixi təcrübə qazanmağın mühüm qaynaqlarından biridir. Əsl lider, əsl siyasətçi dövrün, zamanın, ilk növbədə xalqının tələbatlarına vaxtında həssas reaksiya verməyi bacarır. Azərbaycanın timsalında dünya birliyi bir daha inandı ki, xalqının müstəqilliyi uğrunda barışmaz mübarizə aparan Heydər Əliyev kimi lider ölkəsi ətrafında risk amilinin artdığı bir zamanda canlı praktikadan və yaradıcı təbii dəyərlərdən bəhrələnəndə cahanşümul enerji nümayiş etdirir, universal fəaliyyət subyekti kimi hərəkət edir. Ulu öndərin fəaliyyəti sivilizasiyalı dünyanı bir daha inandırdı ki, iri və qüdrətli dövlətlərin başçıları vaxtilə az tanınan Azərbaycan məkanında siyasət arenasında intellektual siyasətçi kimi xalqının rəğbətini qazanmış görkəmli lider və strateqlə iş görməli olacaqlar.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətində əldə edilən hər bir uğur ulu öndər Heydər Əliyevin zəkasının təcəssümü, onun irsən qoyub getdiyi milli tərəqqi ideyalarının təzahürüdür. Onun 2003-cü ildə prezidentlik fəaliyyətinə başlaması Azərbaycanın tərəqqi və inkişaf

yolu ilə irəliləməsində yeni mərhələ olmuşdur. Həmin il müstəqilliyimizin daha da möhkəmləndirilməsi, ölkədə sabit siyasi sistemin, çoxukladlı iqtisadi strukturun intensiv formalaşması ili oldu. Məhz o vaxtdan başlayaraq respublikada demokratikləşmə prosesləri genişlənmiş, ölkəmizin dünyaya transformasiya proseslərinə inteqrasiyası daha intensiv xarakter kəsb etmiş, milli iqtisadiyyatın daha da inkişafı üçün mühüm sosial-siyasi baza yaranmışdır. Heydər Əliyevin siyasət məktəbinin layiqli yetirməsi olan İlham Əliyevin böyük siyasətdə atdığı inamlı addımlar sayəsində Azərbaycanda təkcə sosial-iqtisadi sistemdə deyil, həm də siyasi və ictimai təsisatlarda əsaslı yeniləşmələr olmuş, səmərəli intensiv islahatlar aparılmışdır. 15 oktyabr 2008-ci ildə Azərbaycanda keçirilən Prezident seçkilərinə xalqın, milli elitanın və beynəlxalq müşahidəçilərin verdiyi yüksək qiymət deyilənləri bir daha sübut etdi. Prezident İlham Əliyev demişdir: "Bizim təcrübəmiz onu göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur. İqtisadi, siyasi və sosial islahatların paralel şəkildə aparılması Azərbaycanı hərtərəfli inkişaf etdirir, ölkəmiz üçün çox lazım olan sabitliyi möhkəmləndirir, ictimai-siyasi vəziyyətə müsbət təsir göstərir. Ona görə də siyasi və iqtisadi islahatların davam etdirilməsi zamanın tələbidir. Əgər biz doğrudan da müasir, güclü ölkə yaratmaq istəyiriksə bunu etməliyik. Bu işdə dövlətin üzərinə böyük vəzifələr düşür. Biz buna birlikdə nail olmalıyıq".

Ulu öndərin xalqımızın, cəmiyyətimizin milli inkişafına yönəlmiş müstəqillik konsepsiyasını yaradıcılıqla davam etdirən Prezident İlham Əliyevin milli inkişaf konsepsiyasının başlıca qayəsi ölkədə demokratik transformasiya proseslərini ən yaxın müddətdə başa çatdırmaq, vətəndaş cəmiyyəti strukturlarının və təsisatlarının formalaşmasına başlamaq səyləri ilə həyata keçirilən "sabitlikdən inkişafa doğru" ideyasıdır. Ölkə Prezidentinin əzmkar fəaliyyətini qeyd edərkən ulu öndərin bu müdrik sözləri yada düşür: "Sizi əmin edirəm ki, Azərbaycan xalqı indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin, Azərbaycan xalqının milli azadlığının keşiyində duracaq və bu müstəqilliyi cəsarətlə qoruyub saxlayacaqdır".

"**Azərbaycan**".-2010.-9 may.-N 100.-S.3.

## DAVAMLI İNKİŞAF STRATEGİYASININ MÜƏLLİFİ

**Şahin MUSTAFAYEV,**
İqtisadi inkişaf naziri

**Tarixi təcrübə sübut edir ki, hər hansı dövlətin inkişafını, dünya birliyində öz layiqli yerini tuta bilməsini şərtləndirən əsas amillərdən biri də xalqın özünə lider olaraq seçdiyi şəxsin fərdi keyfiyyətləridir. Çünki dövlətin böyük və ya kiçikliyindən, malik olduğu iqtisadi potensialdan asılı olmayaraq, son nəticədə onun hərtərəfli tərəqqisini müəyyən edən əsas məqamlardan biri məhz lider faktorudur. Mürəkkəb, ziddiyyətlərlə dolu tarixi prosesləri düzgün qiymətləndirən, geosiyasi dəyişikliklərin gedişini xalqının maraqları çərçivəsinə yönəltməyə qadir olan, bu məqsədlə praqmatik, rasional gedişlər etməyi bacaran, hadisələrin inkişaf axarını ən azı bir neçə on il qabaqlaya bilən lider ölkəsinin inkişafı, təhlükəsizliyinə nail olmaqla yanaşı, dünya birliyində onun mövqelərini gücləndirir.**

Xarizma, yüksək nüfuz, təşkilatçılıq bacarığı, müdriklik, yüksək intellektuallıq, milli-mənəvi dəyərlərin daim uca tutulması, novatorluq, hadisələrə pozitiv təsir, qətiyyətlilik, prinsipiallıq və bu qəbildən olan digər keyfiyyətlər həm də liderin xalqının inkişafında oynadığı rolu müəyyən edən əsas cəhətlər kimi çıxış edir. Fəaliyyətləri ilə tarix yaradan belə liderlər hər zaman beynəlxalq siyasətdə də heyranlıq duyulan şəxsiyyətlər sırasında yer alır, daim böyük hörmət və ehtiramla anılır. Bu mənada Azərbaycan xalqı da özünü xoşbəxt saya bilər ki, kifayət qədər mürəkkəb və ziddiyyətlərlə dolu dövr kimi xarakterizə edilən XX əsrdə 30 ilə yaxın bir müddətdə Heydər Əliyev kimi xarizmatik lider ölkəmizə rəhbərlik etmiş, məhz bu dahi insanın yorulmaz fəaliyyəti, gərgin zəhməti sayəsində Azərbaycan sürətli, dönməz inkişaf yoluna qədəm qoymuşdur.

Hələ ötən əsrin son onilliyində yenidən dövlət müstəqillyini əldə edən Azərbaycana dağılmış sovet imperiyasından qalan bir miras da bərbad vəziyyətə düşmüş iqtisadiyyat, bu zəmində qabarmaqda olan sosial problemlər olmuşdur. Ənənəvi planlı təsərrüfat iqtisadiyyatından imtina edilərək yeni iqtisadi formasiyaya keçid fonunda isə lazımi bazanın yoxluğu, ilk illər hakimiyyətdə olan və tez-tez dəyişən qüvvələrin idarəçilik qabiliyyətlərinin aşağı səviyyədə olması, səriştəsizlikləri bu sahədə vəziyyəti daha da ağırlaşdırırdı. Təbii ki, bütün bunlar əhalinin maddi rifah halında əks olunmaqda, yaşayış səviyyəsinin sürətlə aşağıya düşməsinə, sosial qayğıların miqyasının genişlənməsinə səbəb olmaqda idi. Ölkənin zəngin təbii ehtiyatlara, lazımi elmi və insan potensialına malik olmasına baxmayaraq, iqtisadi, sosial zəmində də vəziyyətin hər keçən gün daha da pisləşməsi Azərbaycanda o dövr üçün onsuz da tez-tez pozulan daxili sabitliyə, o cümlədən dövlət müstəqilliyinə yaranmış təhdidin miqyasını genişləndirməkdə idi.

Belə vəziyyətdə Azərbaycanı yaranmış daxili və xarici təhlükələrdən hifz edə biləcək, onu həqiqi müstəqillyinə qovuşduracaq, bazar iqtisadiyyatına sürətli keçidini təmin edəcək yeganə şəxs, ümid yeri hələ SSRİ dönəmində göstərdiyi fəaliyyətinə görə adı ölkəmizin tarixində qızıl hərflərlə həkk olunan ümummilli lider Heydər Əliyev idi. Bu mənada ulu öndərin yenidən hakimiyyət rəhbərliyinə qayıdaraq Azərbaycanı düşdüyü bəlalardan xilas etməsi üçün xalqın istək və təkidli tələbi tamamilə təbii xarakter daşıyırdı. Beləliklə, 1993-cü ildə xalqın istəyi ilə ikinci dəfə hakimiyyət başına gələn Heydər Əliyev müstəqil Azərbaycanın, eləcə də azad bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşdırılmasının banisi oldu. Azərbaycanın qısa zaman kəsiyində iqtisadi sferada böyük uğurlara imza atması bu sahədə də uğurlu idarəçiliyin, Heydər Əliyev uzaqgörənliyinin, onun müəyyənləşdirdiyi inkişaf strategiyasının məntiqi nəticəsi idi.

Xatırlatmaq yerinə düşərdi ki, 90-cı illərin əvvəlində Sovet İttifaqının süqutu, müəssisələr arasında mövcud əlaqələrin pozulması, o dövrdəki siyasi rəhbərliyin səriştəsizliyi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, 1 milyondan artıq soydaşımızın doğma yurd-yuvasından didərgin düşməsi, Azərbaycanın iqtisadi, siyasi, informasiya blokadasına alınması ölkənin sosial-iqtisadi həyatında xaosa gətirib çıxarmışdı. O dövrün iqtisadi mənzərəsi həmin illərin makroiqtisadi göstəricilərində daha aydın nəzərə çarpır. 1991-1994-cü illər ərzində ölkə iqtisadiyyatında ÜDM hər il orta hesabla 16,5 faiz azalmışdı. Tənəzzül meyli sənayedə xüsusilə kəskin xarakter almış, 1985-ci ilə nisbətən sənaye istehsalının həcmi 1991-ci ildə 10 faiz, 1992-ci ildə 37 faiz, 1993-cü ildə isə 50 faizə qədər azalmışdı. Ölkə istehsal potensialının demək olar ki, 2/3-ni itirmişdi. İstehsal sahələrinin sıradan çıxması nəticəsində işsizlik səviyyəsi artmışdır. 1992-ci ildə inflyasiya səviyyəsi əvvəlki ilə nisbətən 4,9 dəfə artaraq 1012,3 faiz təşkil etmiş, 1994-cü ildə isə özünün ən yüksək həddinə, hiperinflyasiya mərhələsinə – 1763,5 faizə çatmışdı. Büdcə kəsirinin ümumi daxili məhsula nisbəti 1991-ci ildəki 0,1 faizdən 1994-cü ildə 13 faizə qədər artmışdı və büdcə kəsiri bütövlükdə Milli Bank tərəfindən maliyyələşdirilirdi. 1992-1994-cü illərdə xarici ticarət dövriyyəsinin həcmi 42 faiz azalmış, 1994-cü ilədək ölkə iqtisadiyyatına demək olar ki, xarici sərmayə qoyulmamışdı. 1994-cü ildə Milli Bankın uçot dərəcəsi 250 faizə çatmışdı. Əslində ölkə iqtisadiyyatı idarəolunmaz vəziyyətə düşmüşdü. Qeyd olunan proseslər əhalinin

güzəranının ağırlaşmasına səbəb olmuşdu. 1991-1995-ci illərdə əhalinin pul gəlirləri real ifadədə 3,3, adambaşına pul gəlirləri orta hesabla 3,6 dəfə aşağı düşmüşdü. 1991-ci ildən başlayaraq 4 il ərzində əhalinin əməkhaqqı isə 5,7 dəfə azalmışdı.

Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra ölkədə siyasi sabitlik bərqərar oldu, atəşkəs əldə edildi, irimiqyaslı iqtisadi islahatlara başlanıldı. Bunun nəticəsində ölkədə maliyyə vəziyyəti sabitləşdi, iqtisadiyyata cəlb olunan investisiyaların həcmi ildən-ilə artdı, xalqın həyat səviyyəsi yaxşılaşmağa başladı.

1994-cü il sentyabrın 20-də dünyanın 8 ölkəsini təmsil edən 11 transmilli neft şirkəti ilə "Əsrin müqaviləsi"nin imzalanması və icrasına başlanması ilə Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının və ölkənin enerji təhlükəsizliyinin möhkəm təməli qoyuldu. Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə isə Bakı-Supsa ixrac neft kəmərlərinin istismara verilməsinə və Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşası ilə bağlı sazişin imzalanmasına, beləliklə də ixrac marşrutlarının diversifikasiyasına nail olundu.

Heydər Əliyevin 1999-cu ildə imzaladığı fərmanla neft yataqlarının xarici şirkətlərlə birgə işlənməsindən əldə edilən mənfəət neftinin satışından daxil olan vəsaitlərin səmərəli idarə olunması, həmin vəsaitlərin prioritet sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsini təmin etmək üçün Dövlət Neft Fondu yaradıldı. Hazırda beynəlxalq təşkilatlar tərəfindən fondun fəaliyyəti və bu sahədə şəffaflığın təmin edilməsi yüksək qiymətləndirilir. Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünü tətbiq edən və namizəd statusuna malik 32 ölkədən tamhüquqlu üzv statusunu almış ilk ölkə Azərbaycandır.

Neft-qaz sektoru iqtisadiyyatın digər sahələrinin inkişafında lokomotiv rolunu oynadı. Düşünülmüş iqtisadi siyasət nəticəsində makroiqtisadi sabitliyə nail olundu və davamlı iqtisadi artımın əsası qoyuldu, iqtisadiyyatın bütün sahələrində islahatlara başlandı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atıldı. Ulu öndərin təşəbbüsü və rəhbərliyi altında 1995-ci ildən başlayaraq aqrar sektorun bazar prinsipləri əsasında yenidən qurulması, sovxoz və kolxozların ləğv olunması, onlara məxsus torpağın, mal-qaranın və əmlakın kəndlilərə paylanması kimi tədbirlər nəticəsində kənd təsərrüfatında ciddi struktur dəyişiklikləri baş verdi, keyfiyyətcə fərqli münasibətlər formalaşdı.

Aqrar sektorda səmərəli təsərrüfatçılığın, sahibkarlığın inkişafının təmin olunması məqsədilə kənd təsərrüfatı məhsulları istehsalçılarının əvvəlki vergi borcları silindi, onlara müddətli vergi tətillərinin verilməsinə başlandı. Bununla yanaşı, kənd təsərrüfatı məhsulu istehsalçıları torpaq vergisindən başqa bütün digər vergi ödəmələrindən azad edildilər.

Heydər Əliyevin memarı olduğu və uğurla həyata keçirdiyi torpaq islahatı Azərbaycan kəndlisinin çoxəsrlik arzusunu reallaşdırdı, onları torpağın həqiqi sahibinə çevirdi. Bütün qeyd olunan tədbirlərin həyata keçirilməsi nəticəsində aqrar bölmədə özəl sektorun xüsusi çəkisi bu gün demək olar ki, 100 faizə çatmışdır.

Bununla yanaşı, dövlət mülkiyyətinin özəlləşdirilməsinin qanunvericilik bazası yaradıldı və müvafiq dövlət proqramları təsdiq olundu. Özəlləşdirmənin başlıca məqsədlərini, dövlət proqramlarında təsbit olunduğu kimi, təsərrüfat subyektləri üçün xüsusi mülkiyyət və sərbəst rəqabət prinsipləri əsasında öz-özünü tənzimləyən bazar iqtisadiyyatı mühitinin yaradılması, iqtisadiyyatın strukturunun bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq yenidən qurulması, iqtisadiyyata investisiyaların, o cümlədən xarici investisiyaların cəlb edilməsi, əhalinin həyat səviyyəsinin və sosial vəziyyətinin yaxşılaşdırılması təşkil etmişdir.

Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi siyasətin mühüm istiqamətlərindən biri də infrastrukturun inkişaf etdirilməsi olmuşdur. Azərbaycanın nəqliyyat sisteminin gücləndirilməsi və ölkənin tranzit imkanlarından səmərəli istifadə edilməsi üçün Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri üzrə layihələrin həyata keçirilməsinə başlanıldı.

Eyni zamanda ölkədə sahibkarlığın inkişafı üçün zəruri tədbirlər görüldü. Sosial sahədə mövcud problemlərin kompleks şəkildə həlli məqsədilə əhaliyə göstərilən xidmətlərin, xüsusilə təhsil və səhiyyə xidmətlərinin həcminin, keyfiyyətinin və ünvanlılığının artırılması istiqamətində köklü islahatlara başlandı.

Qeyd olunanlarla bərabər, Azərbaycanın dünya iqtisadi sistemində layiqli yer tutması, ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb olunması məqsədilə investisiyaların qorunması üçün qanunvericilik bazası formalaşdırılmış, 40-a yaxın ölkə ilə ikitərəfli sazişlər imzalanmış, beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq münasibətləri qurulmuşdur.

Beləliklə, Heydər Əliyev strategiyasının həyata keçirilməsi nəticəsində müstəqilliyin ilk illərində baş vermiş tənəzzülün qarşısı uğurla alındı və 1995-ci ildən Azərbaycanda inkişafın yeni mərhələsi – bərpa və dinamik inkişaf dövrü başlandı. 1995-2003-cü illər ərzində ümumi daxili məhsul 90,1 faiz, dövlət büdcəsinin gəlirləri 3 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 25,2 faiz, kənd təsərrüfatı

istehsalının həcmi 53,9 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq real əməkhaqqı 5,1 dəfə artdı, inflyasiya səviyyəsi 2-3 faizə qədər endirildi, bütün maliyyə mənbələri hesabına iqtisadiyyata yönəlmiş investisiyaların ümumi həcmi 20 milyard ABŞ dollarını keçdi.

Müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlər sonrakı illərdə ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafı üçün möhkəm zəmin yaratmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən və yeni çalarlarla zənginləşdirilmiş sosial-iqtisadi siyasətin strateji məqsədləri sərbəst bazar münasibətlərinə və özünüinkişaf qabiliyyətinə malik olan sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması və dünya təsərrüfat sisteminə inteqrasiyasının təmin edilməsidir. Davamlı və dinamik inkişaf məntiqinə əsaslanan bu siyasətin həyata keçirilməsi nəticəsində qazanılmış uğurlar daha da möhkəmləndirilmiş, bu dövrdə makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin, regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin olunmuş, milli valyutanın sabitliyi, bank sisteminin etibarlığı artırılmış, konservativ xarici borclanma strategiyası həyata keçirilmiş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır. İqtisadiyyatın diversifikasiyası ilə bağlı nəzərdə tutulmuş tədbirlərin sistemli və ardıcıl reallaşdırılması üçün dövlət başçısının müvafiq fərman və sərəncamları ilə “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” və bir sıra sahəvi inkişaf proqramları təsdiq edilmiş və onlar hazırda uğurla icra olunur.

Bu baxımdan böyük potensiala malik aqrar sahənin dayanıqlı inkişafı Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Belə ki, kənd təsərrüfatı məhsullarının istehsalının stimullaşdırılması, rəqabət qabiliyyətinin artırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi və ixracının genişləndirilməsi məqsədilə ölkəmizdə kompleks dövlət dəstəyi tədbirləri həyata keçirilir. Hazırda kənd təsərrüfatı məhsullarının istehsalı üçün sərf olunan yanacaq və motor yağlarının, mineral gübrələrin 50 faiz güzəştlə satılması, toxum və tinglərə görə subsidiyaların ödənilməsi kənd təsərrüfatının inkişafına müsbət təsir etmişdir. Bununla yanaşı, kənd təsərrüfatı məhsulları istehsalçılarının güzəştli şərtlərlə texnika və texnoloji avadanlıqlarla təmin edilməsi, damazlıq heyvandarlığın inkişaf etdirilməsi üçün lizinq xidmətləri göstərilmiş, 2014-cü ilə qədər kənd təsərrüfatı mülkiyyətçiləri torpaq vergisi istisna olmaqla digər vergiləri ödəməkdən azad edilmişlər. Bu kimi digər səmərəli tədbirlərin həyata keçirilməsi nəticəsində ilk dəfə olaraq 2009-cu ildə rekord miqdarda taxıl istehsal olunmuş və əsas ərzaq malları ilə əhalinin tələbatı yerli istehsal hesabına təmin edilmişdir ki, bu da ərzaq təhlükəsizliyində ciddi nailiyyətdir.

Ölkənin regionlarında mövcud olan iqtisadi potensialdan tam və səmərəli istifadə olunmasını, sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılmasını və iqtisadiyyatın tarazlı inkişafını təmin etmək məqsədilə uğurla icra olunan dövlət proqramları ölkə başçısının regionların inkişafına göstərdiyi diqqətin bariz nümunəsi olmaqla, regionların kompleks inkişafına, o cümlədən infrastruktur sahələrinin bərpası və genişləndirilməsinə, yeni istehsal və emal müəssisələrinin, sosial-mədəni obyektlərin yaradılmasına, yeni iş yerlərinin açılmasına, əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsinə səbəb olmuşdur.

Ölkəmizin informasiya-kommunikasiya texnologiyaları sisteminin müasir dünya standartları səviyyəsinə çatdırılması məqsədilə Prezidentin sərəncamı ilə “Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı” (“Elektron Azərbaycan”) icra olunmuş, ölkəmizin ümumdünya elektron informasiya məkanına inteqrasiyası təmin edilmişdir. Ölkə rəhbərliyi tərəfindən informasiya-kommunikasiya texnologiyaları sektorunun inkişafı prioritet sahələrdən biri kimi müəyyən edilmişdir. Bu baxımdan, müasir standartlara cavab verən informasiya-kommunikasiya infrastrukturunun yaradılması, vahid milli elektron informasiya məkanının formalaşdırılması, informasiya-kommunikasiya xidmətlərinin genişləndirilməsi istiqamətində önəmli işlər görülmüşdür. 2012-ci ildə milli telekommunikasiya peykinin orbitə çıxarılması nəzərdə tutulur.

Transmilli nəqliyyat proqramları və layihələri çərçivəsində, o cümlədən TRASEKA və Şimal-Cənub beynəlxalq dəhlizlərinin Azərbaycan seqmentində avtomobil magistrallarının tikintisi və yenidənqurulması, regionlarda, xüsusən dağ rayonlarında yol şəbəkəsinin bərpası və təkmilləşdirilməsi işləri həyata keçirilmişdir. Azərbaycanda hasil edilmiş karbohidrogenin dünya bazarlarına nəql edilməsi üçün illik layihə gücü 50 milyon ton olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas Neft İxrac Kəməri, eləcə də Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz Boru Kəməri istismara verilmişdir. Bütün bunlar isə ölkəmizin dünya iqtisadi sisteminə inteqrasiyasını şərtləndirən Heydər Əliyevin ideyalarının reallaşmasının bariz nümunələridir. Prezident İlham

Əliyevin uğurla davam etdirdiyi çevik və ardıcıl siyasət Azərbaycanı Xəzər regionunda əsas multimodal nəqliyyat qovşağına və beynəlxalq aləmdə əhəmiyyət kəsb edən neft və qaz tranziti ölkəsinə çevirmişdir.

Azərbaycan, Gürcüstan və Türkiyə arasında imzalanmış "Bakı-Tbilisi-Qars yeni dəmiryol xətti haqqında" sazişə müvafiq olaraq, Türkiyə və Gürcüstanın ərazilərində dəmir yolu xətlərinin inşası və yenidənqurulması işlərinin aparılması nəticəsində Türkiyə ilə Azərbaycan arasında birbaşa dəmir yolu əlaqəsinin yaradılması və Qara dəniz və Xəzəryanı ölkələrinin Avropanın dəmir yolu şəbəkəsinə qoşulması mümkün olacaq.

Elektrik enerjisi istehsalının generasiya gücləri artırılmış, bu məqsədlə müasir tipli yeni elektrik stansiyaları tikilib istifadəyə verilmiş, həmçinin alternativ və bərpa olunan enerji mənbələrinin istifadəsinin genişləndirilməsi üçün qanunvericilik bazası təkmilləşdirilmiş və zəruri institusional tədbirlər həyata keçirilmişdir. Ümumilikdə ölkənin elektroenergetika sisteminin ümumi generasiya gücü 6 min meqavatı üstələmiş, ölkənin elektrik enerjisinə olan tələbatı tam ödənilmiş və Azərbaycan enerji idxalçısından ixracatçısına çevrilmişdir. Bu gün ölkəmiz Avropanın enerji təhlükəsizliyinin fəal iştirakçısıdır.

Prezidentin tapşırıqlarına uyğun olaraq, elektrik enerjisi, qaz, su, kanalizasiya və digər kommunal təsərrüfatı sektorlarının idarəetmə strukturunun bazar iqtisadiyyatı şəraitinə uyğunlaşdırılması, xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması, maliyyə intizamının gücləndirilməsi və investisiyaların cəlb olunması istiqamətində bir sıra əsaslı tədbirlər həyata keçirilmişdir. Eyni zamanda əhalinin su ilə fasiləsiz təmin edilməsi üçün Oğuz-Qəbələ-Bakı su kəməri tikilir.

Ümummilli lider Heydər Əliyevin "Bazar iqtisadiyyatının aparıcı qüvvəsi iş adamlarıdır, özəl şirkətlərdir, xarici sərmayəçilərdir" fəlsəfəsi bu gün də özəl bölmənin inkişafının əsasını təşkil edir. Sahibkarlığın inkişaf etdirilməsi, əlverişli biznes və investisiya mühiti yaratmaqla daxili və xarici investisiyaların cəlb edilməsi, qeyri-neft sektorunun inkişafına nail olunması həyata keçirilən iqtisadi siyasətin səciyyəvi xüsusiyyətlərindəndir.

Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda sahibkarlar təbəqəsi formalaşmış, özəl sektorun ölkənin sosial-iqtisadi inkişafında rolu artmışdır. Vergi yükünün azaldılması və vergi prosedurlarının asanlaşdırılması məqsədilə fərdi sahibkarlara tətbiq edilən gəlir vergisi 35 faizdən 20, müəssisələrin mənfəət vergisi 22 faizdən 20, fiziki şəxslərdən tutulan gəlir vergisinin yuxarı həddi 35 faizdən 30 faizə endirilmiş, sadələşdirilmiş vergi ödəyicisi hüququ əldə etmək məqsədləri üçün hüquqi şəxslərin vergi tutulan əməliyyatlarının illik həcmi 90 min manatdan 150 min manatadək artırılmış, ƏDV və aksizlər üzrə elektron vergi hesab-fakturalarının tətbiqinə başlanmışdır.

Dövlət başçısının müvafiq sərəncamlarına əsasən, sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı və Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılması "bir pəncərə" prinsipinə uyğun təşkil edilmişdir. Özəl sektorun inkişafının sürətləndirilməsi, bu sahəyə maliyyə dəstəyinin daha da gücləndirilməsi məqsədilə dövlət vəsaitləri hesabına sahibkarların investisiya layihələrinin güzəştli qaydada kreditləşdirilməsinin daha effektiv mexanizmi formalaşdırılmışdır. Təsadüfi deyildir ki, 2009-cu ildə sahibkarlara 130 milyon manat güzəştli kreditlər verilmiş, güzəştli kreditlərdən yararlanan iş adamlarının sayı 2100-ü ötmüşdür. Sahibkarlığın inkişafında əhəmiyyətli dövlət dəstəyi mexanizmi olan xüsusi iqtisadi zonaların yaradılmasının qanunvericilik bazası formalaşdırılmışdır.

Bütün bunlar bir daha göstərir ki, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və xalqımızı daha parlaq gələcəyə aparan hərtərəfli inkişaf yolunun Prezident İlham Əliyev tərəfindən uğurla və inamla davam etdirilməsi, yaradılmış münbit iqtisadi şərait davamlı və sürətli iqtisadi inkişafı təmin etmişdir. Belə ki, 2004-2009-cu illər ərzində ümumi daxili məhsulun həcmi 2,8 dəfə artaraq, onun adambaşına düşən həcmi 2009-cu ildə 4874,1 ABŞ dollarına çatmışdır.

Eyni zamanda ölkənin iqtisadi təhlükəsizliyini təmin edə biləcək valyuta ehtiyatları formalaşdırılmışdır. Azərbaycanın valyuta ehtiyatları 22 milyard ABŞ dollarına çatmışdır ki, bu da ölkənin xarici dövlət borcunu 6 dəfə üstələyir və 40 aylıq qeyri-neft idxalının maliyyələşdirilməsinə kifayət edir. Formalaşdırılmış və beynəlxalq standartlara cavab verən qanunvericilik bazası sürətli iqtisadi inkişafı dəstəkləmiş, konkret proqramlar vasitəsilə əsas sosial-iqtisadi inkişaf məqsədlərinə nail olunmuşdur. Ümumilikdə müxtəlif sahələr üzrə 100-dən çox konsepsiya, dövlət proqramı və digər irimiqyaslı sənədlər qəbul edilmişdir. Yaradılmış əlverişli biznes mühiti nəticəsində iqtisadiyyata qoyulmuş investisiyaların həcmi 70 milyard dolları ötmüşdür ki, bunun da yarısı xarici investisiyaların payına düşür.

Xalqımızın sosial rifahının daha da yaxşılaşdırılması Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin əsas məqsədidir. Bu siyasətin nəticəsidir ki, 2004-2009-cu illərdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün büdcə vəsaitlərinin həcmi 4,8, ölkə üzrə orta aylıq əməkhaqqı 3,

əhalinin gəlirləri 3,4, onun adambaşına düşən həcmi isə 3,2, minimum pensiyanın məbləği 3,8, minimum əməkhaqqı 6,3 dəfə artırılmışdır. Göstərilmiş məqsədyönlü tədbirlərin həyata keçirilməsi nəticəsində yoxsulluq səviyyəsi son 5 ildə 4,1 dəfə azalaraq 44,7 faizdən 11 faizədək enmişdir. Son 6 ildə 840 min yeni iş yeri yaradılmışdır.

2009-cu ildə əhalinin banklardakı əmanətləri 23 faiz, iqtisadiyyata banklar və kredit təşkilatları tərəfindən kredit qoyuluşunun həcmi isə 17 faiz artmışdır. 2009-cu ildə əvvəlki illə müqayisədə 12,5 faiz çox pullu xidmətlər göstərilmiş, 8,9 faiz çox istehlak malları satılmışdır. Əhalinin hər nəfərinə düşən nominal gəlirlər 2008-ci ilə nisbətən 6,7 faiz, ölkə iqtisadiyyatında çalışan işçilərin orta aylıq əməkhaqqı 8,6 faiz artmışdır.

Azərbaycanın uğurları nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapmışdır. Təsadüfi deyil ki, Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan "Doing Business 2009″ hesabatında Azərbaycan biznes mühitinin yaxşılaşdırılması sahəsində ən islahatçı ölkə elan edilmiş, "Doing Business 2010″ hesabatında da ölkəmiz öz mövqelərini qoruyub saxlamışdır. 2009-2010-cu illər üçün hazırlanmış "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan 18 pillə irəliləyərək 133 ölkə arasında 51-ci MDB ölkələri arasında isə 1-ci yerə yüksəlmişdir.

Son dövrlər dünyada gedən qlobal proseslər ölkəmizin dayanıqlığını və onun regional güc mərkəzi kimi formalaşdığını bir daha sübut etdi. Qlobal maliyyə-iqtisadi böhran nəticəsində bir çox ölkələrdə ressesiyaya baxmayaraq, Azərbaycanda makroiqtisadi sabitlik, iqtisadi artım, yoxsulluq səviyyəsinin azalması və əhalinin maddi rifah halının yüksəlməsi 2009-cu ildə olduğu kimi, 2010-cu ildə də davam edir. Belə ki, 2010-cu ilin birinci rübündə ÜDM-nin real artımı 5,4 faiz, o cümlədən neft-qaz sektorunda 6,9 faiz, qeyri-neft sektorunda 4,3, təşkil etmişdir. Bu dövrdə sənayedə 6,2 faiz, kənd təsərrüfatında 1,5 faiz, rabitədə 24,8 faiz, ticarətdə 6,2 faiz, nəqliyyatda 2,6 faizlik artıma nail olunmuşdur.

Bütövlükdə Azərbaycan iqtisadiyyatının gələcək inkişafı ilə bağlı beynəlxalq təşkilatların proqnozları nikbindir. Təsadüfi deyildir ki, nüfuzlu "Standard and Poors" beynəlxalq reytinq agentliyi ölkə iqtisadiyyatının hazırkı durumunu "Stabil"dən "Pozitiv"ə yüksəltmişdir. Beləliklə, ulu öndər Heydər Əliyevin yaratdığı möhkəm təməl, Prezident İlham Əliyevin müdrik, düşünülmüş, uzaqgörən, zamanın sınağından uğurla çıxmış siyasəti nəticəsində ölkəmiz həm forma, həm də məzmun etibarilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Dövlət başçısının qeyd etdiyi kimi: "Azərbaycan iqtisadiyyatına çox böyük təkan verilmişdir və o, bu gün də davam etdirilir. Bütün bunlar, əlbəttə ki, növbəti illərdə iqtisadiyyatımızın daha da şaxələndirilməsinə gətirib çıxaracaqdır".

**Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında postsosilasit düşərgəsində iqtisadi sahədə keçid dövrünü tarix üçün o qədər də böyük olmayan qısa zaman kəsiyində başa vurmağı bacaran Azərbaycan bununla daha bir möhtəşəm nailiyyətə imza atmışdır. Keçid dövrünün başa çatması ilə əlaqədar sosial-iqtisadi inkişafın qarşıya qoyduğu yeni vəzifələrin uğurlu həlli ilə isə qarşıdakı dövr ərzində də Azərbaycanın tərəqqi tempinin yüksək göstəricilərlə ifadə olunacağını deməyə əsas verir.**

"**Azərbaycan**".-2010.-9 may.-N 100.-S.5.

# HEYDƏR ƏLİYEV VƏ XARİCİ SİYASƏTİN AZƏRBAYCAN MODELİ

**Novruz MƏMMƏDOV,**
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının
xarici əlaqələr şöbəsinin müdiri, səfir, YAP Siyasi Şurasının üzvü

**Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra ölkənin qarşısında duran mühüm vəzifələrdən biri milli mənafelərə əsaslanan xarici siyasət kursunun müəyyən edilərək həyata keçirilməsi idi. Ölkəni düşdüyü ağır vəziyyətdən çıxarmaq üçün səmərəli, praqmatik xarici siyasət kursunun müəyyən edilməsi zərurəti yaranmışdı.**

1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev ilk günlərdən Azərbaycanın xarici siyasətini yeniləşdirdi və ölkənin strateji maraqları əsasında yenidən qurdu. Ulu öndər, ilk növbədə keçmiş hakimiyyətin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa, ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Hələ Milli Məclisin sədri seçilərkən Heydər Əliyev xarici siyasətin başlıca vəzifələrini və istiqamətlərini müəyyənləşdirdi: “Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır”.

Sözünə davam edərək Heydər Əliyev bu sahədə buraxılan səhvlərə diqqəti yönəldir: “Azərbaycanın bütün dövlətlərlə gərək bərabər hüquqlu əlaqəsi olsun, Türkiyə ilə, İran ilə, qonşu Gürcüstan ilə, Rusiya ilə də, Amerika ilə də, Avropa dövlətləri ilə də, Ərəbistan dövlətləri ilə də, müsəlman dövlətləri ilə də, türkdilli dövlətlərlə də, Mərkəzi Asiya dövlətləri ilə, Qazaxıstanla da bərabər hüquqlu əlaqələri olmalıdır”.

Heydər Əliyev son illərdə Azərbaycanın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə yolverilməz və milli maraqlara zidd olduğunu vurğuladı. O, özünütəcrid xəttinin acı nəticəsi kimi dünyanın Azərbaycanı tanımamasını, problemlərimizi bilməməsini, haqq səsimizi eşitməməsini göstərir və belə siyasəti “özümüzün özümüzə vurduğumuz zərbə” adlandırırdı. Ölkənin mənafelərini qorumaq istiqamətində hərtərəfli ölçülüb-biçilmiş addımların atılmasının vacibliyini vurğulayan Heydər Əliyev Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər və xüsusi taktiki gedişlər etdi. Xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla, nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrinin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başlandı.

İlk növbədə, yaxın xariclə münasibətləri qaydaya salmaq, əlaqələri bərpa etmək lazım gəlirdi. Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olması bu yöndə atılmış ilk addımlardan biri idi. Bu quruma daxil olan keçmiş Sovet respublikaları ilə ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmləndirilməsi istiqamətində ardıcıl iş aparıldı. Bu ölkələrlə iqtisadi, ticarət və mədəni əməkdaşlıq məsələlərinə xüsusi önəm verildi.

Azərbaycanın tarixən bağlı olduğu Rusiya ilə münasibətlərində uğurlu dialoq və anlaşma mühitinin yaranması isə ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsi, bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunması baxımından əhəmiyyətli idi. Azərbaycan müstəqilliyə qovuşduqdan sonra Rusiya ilə əməkdaşlığın inkişafına həmişə böyük əhəmiyyət vermişdir. İki ölkə arasında dostluq əlaqələrinin möhkəmlənməsində ümummilli lider Heydər Əliyevin xüsusi rolu və xidmətləri olmuşdur. Məhz onun səyləri ilə bu əlaqələr dostluq və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Heydər Əliyevin Rusiyanın Qərbin və Şərqin böyük sivilizasiyalarını özündə təcəssüm etdirən və dünya siyasətində nadir rol oynayan bir ölkə olması haqqında söylədiyi fikir Azərbaycanın xarici siyasətində Rusiyanın rolunu və yerini son dərəcə aydın müəyyən edir.

Ölkələrimizin münasibətlərinin yeni mərhələsi Rusiya Prezidenti V. Putinin Azərbaycana tarixi səfərindən başlanmışdır. Bu, Rusiya Prezidentinin suveren Azərbaycana ilk səfəri idi. Ulu öndər Heydər Əliyevin Rusiyaya cavab səfəri, Bakı Bəyannaməsinin imzalanması, Xəzərin statusu ilə əlaqədar məsələlərin həlli iki ölkənin müxtəlif səviyyələrdə münasibətlərinə nəzərəçarpacaq tərəqqi və dinamizm gətirmişdir.

Hər iki ölkə siyasi və iqtisadi əməkdaşlığın dinamik inkişafında maraqlıdır. Bu gün Azərbaycan Cənubi Qafqazda Rusiya ilə bərabərhüquqlu münasibətlər sistemi yaratmağa nail olmuş yeganə dövlətdir. Rusiya ilə qarşılıqlı faydalı münasibətlərin inkişaf etdirilməsi Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi, bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. İqtisadi, siyasi və hərbi potensial baxımından beynəlxalq münasibətlər sistemində xüsusi yeri olan Rusiya Federasiyası ilə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək, keçmiş Sovet İttifaqı dövründən mövcud olan çoxşaxəli əlaqələri müasir geosiyasi gerçəkliklərə nəzərən inkişaf etdirmək rəsmi Bakının xarici siyasətində vacib məsələlərdən biri kimi nəzərdən keçirilir. Moskva ilə Bakı arasında çox möhkəm siyasi və iqtisadi əlaqələr mövcuddur. İki ölkə arasında 2008-ci ilin iyulunda Bakıda imzalanmış Dostluq və strateji əməkdaşlıq haqqında Bəyannaməyə Cənubi Qafqazda və Xəzər regionunda təhlükəsizliyin təmin olunmasının ayrıca bənd kimi salınması Rusiyanın niyyətlərinin ciddi olduğundan xəbər verir. Bu bəyannamədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığını ehtiva edən beynəlxalq norma və prinsiplər əsasında tezliklə tənzimlənməsi qeyd olunur.

İkitərəfli əməkdaşlıq sistemində Gürcüstan, Ukrayna və Moldova ilə yaradılan yeni əlaqələr də çox əhəmiyyətli olmuşdur. Bu ölkələrlə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi Azərbaycan Respublikasının xarici siyasətinin yeni mühüm uğuru idi. Ukrayna bizim üçün hər cəhətdən inkişaf etmiş böyük və zəngin ölkə olmaqla iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üçün əlverişli tərəfdaş kimi əhəmiyyətlidirsə, Gürcüstan da yaxın qonşu, Avropaya çıxışımız, orada yarım milyona yaxın soydaşlarımızın yaşaması, Qafqazın bugünkü dolaşıq düyünlərinin açılması və bu qaynar regionda sülhün və sabitliyin təmin edilməsi baxımından əhəmiyyətlidir. Azərbaycan və Gürcüstan arasında ikitərəfli strateji tərəfdaşlıq və dərinləşən əməkdaşlıq regionda sabitliyin göstəricisinə çevrilmişdir. Odur ki, Azərbaycanın dövlət başçısı Qafqaz bölgəsinin bütün dövlətləri ilə, ilk növbədə Gürcüstanla əlaqələrin genişləndirilməsi və inkişafına, xarici qüvvələr tərəfindən süni olaraq milli münaqişələrin qaynar nöqtəsinə çevrilmiş bu regionda sülhün və əməkdaşlığın təmin olunması məsələlərinə böyük diqqət yetirirdi. Onun Qafqazda sülh və əməkdaşlıq məsələlərinə dair irəli sürdüyü kompleks təkliflər proqramı, Ermənistan istisna olmaqla bütün region dövlətləri, əsasən də Gürcüstan tərəfindən rəğbətlə qarşılanmışdır.

Bu illərdə Ermənistanın davam edən təcavüzünün qarşısının alınması və müharibənin dayandırılması xüsusi əhəmiyyət kəsb edirdi. Ən başlıcası isə, erməni təcavüzünün mahiyyətini, ermənilərin vəhşiliklərini dünyaya yaymaq, Azərbaycan ətrafında yaradılmış informasiya blokadasını yarmaq, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri dünya birliyinin diqqətinə çatdırmaq kimi vacib işlər öz həllini gözləyirdi.

Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Prezident Heydər Əliyevin geniş və çoxşaxəli fəaliyyətinin əsas məzmununu münaqişənin beynəlxalq normalara uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizama salınması təşkil edirdi. Vaxtilə dünya siyasətindən demək olar ki, təcrid olunmuş, informasiya blokadasında sıxılan, haqqı tapdandığı halda erməni təbliğatı sayəsində üstəlik dünya birliyinin də qınağına tuş gələn, ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi Azərbaycana hər cür yardım göstərilməsini qadağan edən “Azadlığı dəstək aktı”na 907-ci düzəliş” deyilən ədalətsiz sənədlə ayrı-seçkiliyə məruz qalan Azərbaycan yalnız Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın bütün demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatların ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətini kökündən dəyişdirməyə nail ola bildi.

Münaqişənin həlli istiqamətində ən mühüm addımlardan biri atəşkəsin əldə edilməsi oldu. 1993-cü ilin sonları və 1994-cü ilin əvvəllərində ATƏT-in və digər vasitəçilərin səyləri ilə aparılan danışıqlar nəticəsində 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs əldə edildi. 1993-1995-ci illərdə Azərbaycan Prezidentinin bir sıra xarici ölkələrə səfərləri, keçirdiyi görüşlər, eləcə də dünyanın ayrı-ayrı dövlətlərindən respublikamıza gələn nümayəndələrlə aparılan danışıqlar Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətlərin beynəlxalq aləmə çatdırılması baxımından əhəmiyyətli rol oynadı. Azərbaycana, onun problemlərinə dünya birliyinin münasibətindəki təkamül prosesi özünü ATƏT-in Budapeşt, Lissabon və İstanbul sammitlərində qabarıq şəkildə büruzə verdi. Lissabon sammitində ilk dəfə olaraq ATƏT-in 54 üzvündən 53-ü münaqişənin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklədi. Bu, Azərbaycanın xarici siyasətinin böyük uğuru olmaqla yanaşı, ölkəmizin cəlb olunduğu münaqişənin nizama salınmasında keyfiyyətcə yeni mərhələ idi.

Etiraf etmək lazımdır ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məqsədyönlü və səmərəli siyasət artıq özünün real nəticələrini verməkdədir. Azərbaycan dövlətinin ardıcıl səyləri sayəsində beynəlxalq aləmdə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı faktının tanınması və ermənilərin işğal olunmuş ərazilərdə etnik təmizləmə siyasəti apararaq separatçı qurum yaratma cəhdinin təsdiqlənməsi, bu məsələnin BMT Baş Məclisinin sessiyasının gündəliyinə salınması, dünyanın ən nüfuzlu beynəlxalq təşkilatının

beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsini bəyan edən, erməni qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən, bu ərazilərdən qovulmuş əhalinin öz yurd-yuvalarına qayıtma hüququnu təsdiq edən və işğal nəticəsində yaranmış vəziyyəti heç bir dövlətin qanuni hesab edə bilməyəcəyini vurğulayan qətnamə qəbul etməsi, ATƏT-in faktaraşdırıcı missiyasının işğal olunmuş ərazilərdə ermənilərin qeyri-qanuni olaraq məskunlaşdırılmasını etiraf etməsi Azərbaycanın xarici siyasət sahəsində apardığı gərgin və məqsədyönlü işin parlaq nəticəsi, Ermənistanın təcavüzkar siyasətinin ifşası istiqamətində qazanılan mühüm diplomatik nailiyyətlərdir.

Əminliklə söyləmək olar ki, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına yönəlmiş danışıqlar prosesində vaxt Azərbaycanın xeyrinə işləyir. Ölkəmiz ildən-ilə güclənir, beynəlxalq mövqelərini möhkəmləndirir və bütün bunlar münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunacağına olan ümidləri artırır. Təhlillər göstərir ki, BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərini tərk etməsi haqqında müvafiq qətnamələrinin mövcudluğu, Avropa Şurası və ATƏT-in qəbul etdiyi bir sıra qərarlarda Ermənistanın təcavüzkar dövlət olduğunun təsbit edilməsi, Prezident İlham Əliyevin hücumçu diplomatiyasının uğurlu nəticələri, informasiya müharibəsində münaqişə barədə erməni tərəfin dünyada yaydığı dezinformasiyanın getdikcə ifşa olunması, Azərbaycanın iqtisadi-hərbi baxımdan güclənməsi, nəhayət, münaqişənin digər vasitələrlə həlli hüququnun ölkəmizdə qalması problemin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığı çərçivəsində həll olunacağına ciddi əsaslar verir.

20 ildir davam edən, beynəlxalq və regional sülhə, təhlükəsizliyə ciddi təhlükə olan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsiplərinin kobudcasına pozulmasının ən canlı nümunəsidir.

Münaqişənin həllinin hüquqi əsasları BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi A/RES/62/243 saylı qətnaməsi, habelə ATƏT və Avropa Şurasının müvafiq sənədləri və qərarlarında əks olunan beynəlxalq hüququn norma və prinsiplərinə söykənir. Bütün bu sənədlər Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığını təsdiqləyir.

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamədə başqa bir dövlətin ərazisinin güc tətbiq etmək yolu ilə ələ keçirilməsinin yolverilməzliyi və Azərbaycanın ərazi bütövlüyü, suverenliyi vurğulanmış, Dağlıq Qarabağ Azərbaycanın bir hissəsi kimi tanınmış, zəbt olunmuş Azərbaycan torpaqlarından işğalçı qüvvələrin qeyd-şərtsiz çıxması çağırışı əksini tapmışdır. BMT Baş Məclisinin 14 mart 2008-ci il tarixli Azərbaycanın “işğal edilmiş ərazilərində vəziyyət” qətnaməsində Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək bir daha ifadə olunmuşdur. BMT Təhlükəsizlik Şurasının və Baş Məclisinin qətnamələrində əks olunmuş yanaşma Azərbaycanın tutduğu mövqe ilə tamamilə üst-üstə düşür. Azərbaycan ilk gündən münaqişənin mərhələli həllinin yeganə mümkün yol olduğunu demişdir. İşğal olunmuş bütün ərazilərdən erməni silahlı qüvvələrinin çıxarılması, həmin ərazilərin bərpası və qaçqın və məcburi köçkünlərin doğma yurdlarına – Dağlıq Qarabağa və ətraf rayonlara geri qayıtması, qarşılıqlı istifadə üçün bütün kommunikasiyaların açılması kimi bir sıra vacib işlər görülməlidir. Bu, müharibənin nəticələrini aradan qaldırmağa, regionun azərbaycanlı və erməni icmalarının qarşılıqlı razılığı nəzərə alınmaqla Azərbaycan daxilində Dağlıq Qarabağ regionunun hüquqi statusunun işlənib hazırlanmasına, regionda davamlı sülhün və sabitliyin təşəkkül tapmasına zəmin yaradacaqdır.

2008-ci ilin noyabrında Azərbaycan, Ermənistan və Rusiya prezidentləri tərəfindən Moskvada imzalanmış Bəyannamədə Ermənistan tərəfinin münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında mərhələli həllini qəbul etməsi yaxşı əlamətdir. Azərbaycan Cənubi Qafqaz regionunda və ondan kənarda təhlükəsizlik və sabitlik naminə Ermənistan rəhbərliyi ilə danışıqları davam etdirir və bu da gələcəkdə geniş regional imkanları bütün tərəflərin faydası üçün istifadə etməyə şərait yaradacaqdır.

Beynəlxalq birlik münaqişədə status-kvonun saxlanılmasının yolverilməzliyini və münaqişənin tezliklə həllinin zəruriliyini dərk edir. Bu xüsusda, 2009-cu il iyulun 10-da “Böyük səkkizliy”in İtaliyanın Akvil şəhərində keçirilmiş sammitində ATƏT-in Minsk qrupunun həmsədr ölkələri prezidentlərinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı birgə bəyanatının, habelə dekabrın 1-də Afinada keçirilmiş ATƏT-in Nazirlər Şurası çərçivəsində Minsk qrupunun həmsədr ölkələri nümayəndə heyətlərinin rəhbərləri olan Rusiya və Fransa xarici işlər nazirlərinin və ABŞ dövlət katibinin müavininin, Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin birgə bəyanatının qəbul olunması münaqişənin nizamlanmasına ən yüksək səviyyədə diqqətin artdığını göstərir.

ATƏT-in xarici işlər nazirləri səviyyəsində Afinada keçirilən iclasında bu münaqişənin məhz ərazi bütövlüyü çərçivəsində həllinə dair sənəd qəbul edilmişdir. Münaqişə dövrü ərzində ilk dəfə Ermənistan bu sənədə qoşulmuş və etiraf etmişdir ki, problemin həlli yalnız ərazi bütövlüyü çərçivəsində mümkündür.

Beləliklə, ərazi bütövlüyü prinsipinin xalqın öz müqəddəratını təyin etməsi problemi ilə qarşı-qarşıya qoyulduğu uzun dövr başa çatmış, ərazi bütövlüyü ilə öz müqəddəratını təyinetmə prinsiplərinin hüquqi tətbiq edilməsində kolliziyanın aradan qaldırılması məsələsində taktiki hücum fəaliyyətinə keçid əldə olunmuşdur. Nəticə sadədir: öz müqəddəratını təyinetmə məsələsi ərazi bütövlüyü prinsipi çərçivəsində həll olunmalıdır.

Dünyanın ən qüdrətli ölkəsi ABŞ-la münasibətlərin qurulmasında və daim yüksələn xətlə inkişaf etdirilməsində Heydər Əliyevin xidmətləri misilsizdir. Müstəqil Azərbaycanla bu ölkə arasında diplomatik münasibətlər 1992-ci ildə yaradılmışdır. Lakin bu, hələ ancaq ilk addım idi. Bu yolla irəliləmək, bir sıra məsələlərə aydınlıq gətirmək, əlaqələri genişləndirmək, etimad, etibar qazanmaq, Azərbaycanı layiqincə təmsil etmək üçün çox iş görmək, böyük diplomatik fəallıq göstərmək tələb olunurdu. Bu, vacib və olduqca zəruri idi. Çünki dünyəvi dövlət qurmaq istəyən və çətin problemlərlə qarşılaşmış gənc, müstəqil bir ölkənin taleyində dünya siyasətində həlledici rolu olan bu fövqəldövlət mühüm rol oynaya bilərdi. Buna nail olmaq, mövcud imkanları reallığa çevirmək üçün ardıcıl, məqsədyönlü səy göstərmək, müxtəlif yollar axtarmaq, vasitələr tapmaq lazım gəlirdi. Nəhayət, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması bu yolda ən mühüm və ən başlıca amil, Azərbaycanla Qərb arasındakı münasibətlərdə dönüş nöqtəsi oldu. Belə ki, Azərbaycana, onunla iqtisadi əməkdaşlığa, onun problemlərinə, geosiyasi əhəmiyyətinə maraq yarandı. Bu maraq ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, münaqişəli problemin dinc yolla həllinə tərəfdar olduğunu bəyan etməsilə nəticələndi.

Beynəlxalq münasibətlərə əsaslı təsir göstərən 2001-ci ilin 11 sentyabr terror hadisələrindən dərhal sonra Heydər Əliyevin bütün bəşəriyyət üçün təhlükə doğuran beynəlxalq terrorizmi pisləyən bəyanatla çıxış etməsi, Azərbaycanın antiterror koalisiyasında fəal iştirak edəcək dövlətlərdən biri olacağını qətiyyətlə bildirməsi ABŞ-ın respublikamıza olan etimadını daha da gücləndirdi və iki ölkənin münasibətlərində vacib keyfiyyət dəyişikliyinə səbəb oldu. Heydər Əliyevin antiterror koalisiyasına verdiyi dəstək və ümumiyyətlə, Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin gerçəkləşdirilməsi, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının Azərbaycan üzərindən Qərbə nəql edilməsi istiqamətində dövlətimizin başçısının göstərdiyi ardıcıl və qətiyyətli səylər, nəticə etibarilə illər boyu xalqımızın haqlı narazılığına səbəb olan "Azadlığı dəstək aktı"na ədalətsiz 907-ci düzəlişin qüvvəsinin dayandırılmasına gətirib çıxardı. 2001-ci ilin oktyabrında ABŞ Prezidenti C. Buş və Dövlət katibi K. Pauell Konqresə müraciət edərək 907-ci düzəlişin aradan qaldırılmasının ABŞ-ın milli maraqlarına xidmət etdiyini vurğuladılar. Erməni lobbisinin ABŞ Konqresinə təsir imkanlarının miqyasını nəzərə alsaq, 907-ci düzəlişin qüvvəsinin dayandırılması, heç şübhəsiz, Heydər Əliyevin xarici siyasətinin böyük uğuru idi.

Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-a 2006-cı il aprelin 25-28-də ilk rəsmi səfəri son illərdə sürətlə inkişaf edən ikitərəfli münasibətlərdə yeni mərhələnin təməlini qoymuş və bir sıra uğurlu nəticələrlə yadda qalmışdır. Səfərin yekunları tam əminliklə deməyə əsas verir ki, ABŞ Azərbaycanla mövcud əlaqələrin daha da genişlənməsində və strateji tərəfdaşlıq münasibətlərinin dərinləşməsində maraqlıdır. Bu maraq, ilk növbədə, Azərbaycanın Qərblə Şərqi qovuşduran geostrateji tranzit xətlərinin təmas məkanında yerləşməsi, qlobal enerji və kommunikasiya layihələrinin reallaşdırılmasında aparıcı rol oynaması, habelə zəngin intellektual resurslara malik olması ilə şərtlənir.

Azərbaycanın yeni xarici siyasət kursunda bütövlükdə Avropa dövlətləri ilə münasibətlər məsələsi yeni bir istiqamət təşkil edirdi. Hər bir ölkənin özünəməxsus xüsusiyyətlərini bütün incəliklərinə qədər nəzərə alan bu yeni kurs çevik taktiki gedişlərlə həyata keçirilirdi. Qısa müddət ərzində Azərbaycanın özünə Böyük Britaniya, Almaniya, Fransa, İtaliya kimi nüfuzlu müttəfiqlər qazanması Heydər Əliyev xarici siyasətinin Avropa istiqamətinin çox mühüm bir uğuru oldu. Prezident Heydər Əliyevin məqsədyönlü xarici siyasəti nəticəsində Avropanın siyasi və iqtisadi həyatında mühüm rol oynayan Belçika Krallığı, Hollandiya, Norveç və digər ölkələrlə qarşılıqlı faydalı əlaqələrin genişləndirilməsi Azərbaycanın Avropa ilə inteqrasiyasına yeni yollar açdı, beynəlxalq aləmdə nüfuzunun artmasına və mövqelərinin möhkəmlənməsinə kömək etdi.

Ötən əsrin 90-cı illərinə doğru sosializm dəyərlərindən imtina edərək bazar iqtisadiyyatı və demokratiya yolunu seçmiş dövlətlər arasında hərtərəfli əməkdaşlıq əlaqələrinin qurulması həm də yeni dövrün reallıqları ilə şərtlənir. Məsələ bundadır ki, vaxtilə keçmiş SSRİ də daxil olmaqla, sosializm düşərgəsinin üzvü olan bu ölkələrin ümumi iqtisadi-siyasi sistem çərçivəsində yerləşməsi onların hər birində oxşar iqtisadiyyatın təşəkkül tapmasına səbəb olmuşdur. Rəsmi Bakının Mərkəzi və Şərqi Avropa ilə qarşılıqlı faydalı əməkdaşlığı bütün səviyyələrdə genişləndirməyə çalışması bu məkanda yerləşən dövlətlərin Avropanın siyasi atmosferinin müəyyənləşməsində mövqeyinin və fəal xarici siyasətinin mühüm təsirə malik olması ilə şərtlənir. Azərbaycan iqtisadi və siyasi islahatları uğurla başa çatdırmış həmin ölkələrin Avropanın siyasi, iqtisadi və təhlükəsizlik sistemlərinə inteqrasiya sahəsindəki mütərəqqi təcrübəsindən səmərəli şəkildə yararlanmaq niyyətindədir. Hazırda Qərbi Avropa ilə yanaşı, Avropa İttifaqı və NATO ilə münasibətlərdə yüksək nəticələr əldə etmiş Polşa,

Rumıniya, Bolqarıstan, Macarıstan, Çexiya, Sloveniya, Xorvatiya kimi ölkələr də Azərbaycanın avrostrukturlara inteqrasiyası prosesinə fəal şəkildə dəstək verir, təcrübələrini bölüşürlər. Eyni zamanda, Mərkəzi və Şərqi Avropa respublikamızın Transqafqaz nəqliyyat-kommunikasiya sistemi vasitəsilə Qərbi Avropaya çıxışının təmini baxımından əlverişli geosiyasi məkandır.

Qeyd etmək lazımdır ki, xaricdən enerji asılılığının minimal həddə endirilməsi dünyanın əsas karbohidrogen ehtiyatlarına nəzarəti əldə etmək uğrunda rəqabətin gücləndiyi hazırkı şəraitdə ayrı-ayrı dövlətlərin təkcə milli təhlükəsizliyinin deyil, həm də müstəqil siyasət yeritməsinin vacib şərtinə çevrilmişdir. Azərbaycan isə bütövlükdə Avropanın enerji təhlükəsizliyində geniş imkanlara malik ölkə kimi Mərkəzi və Şərqi Avropa dövlətlərinin maraq dairəsindədir. Məsələn, 2007-ci ildə ilk enerji sammitinin keçirilməsi təşəbbüsünü üzərinə götürən Polşa Xəzər neftinin Odessa-Brodı-Plotsk-Qdansk kəməri ilə nəqlini təklif edir. Bu marşrut Qara dənizə çıxarılan neftin Baltik dənizi sahilinə çatdırılmasını, oradan Avropa və dünya bazarlarına daşınmasını nəzərdə tutur. Rumıniya isə Xəzər neftinin Rumıniyadan tankerlər vasitəsilə – Supsa limanından Konstansa limanına, daha sonra isə boru kəməri ilə Avropaya nəqli layihəsini dəstəkləyir. Ümumiyyətlə, əksər Avropa ölkələri enerji asılılığından çıxmaq üçün neftin nəqlində tranzit və istehlakçı qismində çıxış etmək niyyətlərini bəyan edirlər.

Heydər Əliyevin ölçülüb-biçilmiş yeni xarici siyasət kursunda Azərbaycanla qonşu olan ölkələrlə, müsəlman ölkələri ilə münasibətlərə də xüsusi diqqət yetirilirdi. Belə ki, bu ölkələrlə münasibətlərdə süni yaradılmış xeyli kəskin problemlər mövcud idi. Yaxın qonşumuz olan İranla hətta siyasi-ideoloji qarşıdurma, Türkiyə barəsində isə real şərait nəzərə alınmadan, ağına-bozuna baxmadan tam etnik birlik, türk birliyi zəminində aparılan emosional siyasət hər iki dost ölkə ilə münasibətlərə xələl gətirir, Azərbaycanın beynəlxalq mövqeyinə ziyan vururdu. Məhz buna görə də Heydər Əliyev çox təcrübəli siyasətçi kimi bu ölkələrlə münasibətlərdə tezliklə dönüş yaratmaq, onlarla qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə, beynəlxalq hüquq normalarına əsaslanan sivilizasiyalı münasibətlər qurmaq üçün böyük əmək sərf etməli oldu.

Həmin xarici siyasət xəttinin mühüm istiqamətlərindən birini də bu iki və digər qonşu ölkələrlə, İslam dünyası ilə münasibətlər təşkil edirdi. Bu baxımdan, dövlət başçısı Heydər Əliyevin İrana, Türkiyəyə, Səudiyyə Ərəbistanı və Pakistana səfərləri və apardığı danışıqlar çox əhəmiyyətli oldu. Belə ki, İran və Türkiyə ilə münasibətlərdə xeyli və əhəmiyyətli dəyişikliklər edildi. İranla münasibətlərin yenidən qurulması, gərginliyin aradan qaldırılması, əməkdaşlığın genişləndirilməsi qısa bir zaman ərzində bu yeni xarici siyasət xəttinin düzgün və faydalı olduğunu göstərdisə, Türkiyə ilə münasibətlərdəki dərin düşünülmüş çox ağıllı dəyişikliklər isə ölkəmiz üçün, həm də ümumiyyətlə, ümumtürk birliyinin inkişaf edərək möhkəmlənməsi üçün çox əhəmiyyətli oldu. Bu işdə Prezident Heydər Əliyevin Türkiyəyə səfərləri mühüm rol oynadı. Nəzərə alındı ki, Türkiyənin əsası Atatürk tərəfindən qoyulmuş ənənəvi xarici siyasəti ilk növbədə ölkənin, millətin mənafeyinə uyğun olan elə xətti əsas götürür ki, bu, təbii sərvətlərlə zəngin olmayan ölkənin iqtisadi inkişafına kömək olsun. Bu isə Xəzər neftinin daşınmasında dörd dənizlə əlaqəsi olan Türkiyənin tranzit əhəmiyyətini, Xəzər neftinin də Türkiyə üçün önəmini artırır. Odur ki, iki ölkə arasında strateji tərəfdaşlıq haqqında imzalanmış sənəd başqa amillərlə yanaşı həmin cəhəti əsas götürərək münasibətləri və dostluğu yeni, yüksək əməli əməkdaşlıq səviyyəsinə qaldırmaqla bu sahədə böyük imkan və perspektivlər açdı. Bu illər ərzində Türkiyə ilə əlaqələr “bir millət, iki dövlət” formulu əsasında, sarsılmaz təməl üzərində qurulmuşdur.

Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi ölkəmizin xarici siyasətinin çox mühüm tərkib hissəsidir. Hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri ikitərəfli siyasi, iqtisadi əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynamışdır. Bu gün ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətləri mövcuddur, bütün sahələrdə əlaqələr uğurla inkişaf edir. Türkiyə beynəlxalq aləmdə Azərbaycanın fəal tərəfdarı kimi çıxış edir. Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün Azərbaycanın göstərdiyi səyləri dəstəkləyir. Türkiyə və Azərbaycan regional əməkdaşlıq prosesinin fəal və söz sahibi olan iştirakçılarıdır. Hər iki ölkə özünün iqtisadi-enerji imkanlarından və geosiyasi mövqeyindən ikitərəfli və regional əməkdaşlığın genişlənməsi naminə səmərəli istifadə edir. Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlıq və dərinləşən əməkdaşlıq regionda sabitliyin göstəricisinə çevrilmişdir.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Türkiyə də daxil olmaqla, bütün türkdilli dövlətlərin ümumi maraq və mənafelər naminə konsolidasiyası istiqamətində inamlı addımlar atmışdır.

Ötən ilin oktyabr ayında Bakıda Türkdilli Ölkələrin Parlament Assambleyasının birinci sammitinin keçirilməsi isə ümumtürk birliyinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü strategiyanın uğurlu davamıdır. İlk dəfə 2006-cı ildə türkdilli ölkələrin dövlət başçılarının sammitində Prezident Nursultan Nazarbayev Türkdilli Ölkələrin Parlament Assambleyasının yaradılması ideyasını irəli sürmüşdür. Ortaq mədəni irsə, dinə, dilə malik olan dövlətləri bir araya gətirdiyi üçün Assambleya böyük əhəmiyyətə malikdir. Türkdilli Ölkələrin Parlament Assambleyası parlamentlərarası ünsiyyətin demokratik forumu kimi

təşəkkül tapacaq, bölgələrin əmin-amanlıq və inkişaf ərazilərinə çevrilməsi məqsədi ilə müxtəlif təşəbbüslərin irəli sürülməsinə və həyata keçirilməsinə əlverişli şərait yaradacaqdır.

Nəhayət, türkdilli ölkələrin dövlət başçılarının yenə də 2009-cu ilin oktyabrında keçirilmiş IX zirvə görüşü Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkmənistan arasında münasibətlərin keyfiyyətcə yeni mərhələdə intensiv inkişafı, ümumi səylərin vahid məqsədlər naminə səfərbər olunması baxımından mühüm nəticələrlə yadda qalmışdır. Faydalı müzakirələrlə əlamətdar olan zirvə toplantısında türk dövlətləri arasında hərtərəfli siyasi, iqtisadi və mədəni əlaqələrin yaradılması vacibliyi önə çəkilmişdir. Eyni zamanda, türkdilli dövlət başçıları ildə iki dəfə – rəsmi və qeyri-rəsmi görüşmək barədə razılığa gəlmişlər. Rəsmi imzalanmış Naxçıvan Bəyannaməsinə görə isə, yaxın perspektivdə Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması nəzərdə tutulur.

Ölkəmiz İranla mütərəqqi və gələcəyə istiqamətlənmiş dialoq aparır və İran dövləti ilə xalqlarımızın mənafeyinə cavab verən mehriban qonşuluq, qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında ikitərəfli siyasi, iqtisadi, mədəni münasibətlərin inkişafına müvəffəq olmuşdur. Hər iki dövlətin mühüm coğrafi mövqedə yerləşməsi və zəngin iqtisadi potensiala malik olması mövcud əməkdaşlığı daha da genişləndirmiş, Azərbaycanla İran arasında iqtisadi əlaqələrin sürətlə inkişafına, əmtəə dövriyyəsinin həcminin ildən-ilə artmasına gətirib çıxarmışdır.

Son illər qlobal və regional məsələlərin həllində Azərbaycan İslam Konfransı Təşkilatı ilə sıx əməkdaşlığını inkişaf etdirərək, onun siyasi rolunun artırılması, beynəlxalq problemlərin həllində təsiri və iştirakının gücləndirilməsi istiqamətində apardığı fəal siyasətini davam etdirmişdir. 2009-cu ildə Bakının İslam mədəniyyətinin paytaxtı elan edilməsi çox əlamətdar və mühüm hadisə olaraq, Azərbaycanın İKT ilə apardığı səmərəli və faydalı əməkdaşlığın, bütövlükdə ölkəmizin İslam ümməti arasında qazandığı nüfuzun mühüm göstəricisi olmuşdur. Azərbaycan mədəniyyətlər və dinlərarası dialoqun təşviqi, müxtəlif millətlər və dinlər arasında dözümlülüyün, qarşılıqlı anlaşmanın və tolerantlığın inkişafına xidmət edən səmərəli meyarların hazırlanması, beynəlxalq ictimaiyyətdə, ilk növbədə Avropada İslamın, onun mədəniyyət, dəyər və fəlsəfəsinin düzgün dərk edilməsi məqsədi ilə fəal səylər göstərmiş, geniştərkibli bir sıra iri beynəlxalq təşəbbüslər həyata keçirmişdir.

Azərbaycanın xarici siyasətində fəal istiqamətlərdən biri Şərqdir. XXI əsrdə Asiya-Sakit okean bölgəsinin dünya siyasətində rolu xeyli artmalıdır. Azərbaycanı Mərkəzi Asiya ilə həm də etnik və mədəni yaxınlıq birləşdirir. Ölkəmiz tarixdə İpək Yolunun əsas məntəqələrindən biri kimi də geosiyasi və mədəni imic qazanıb. Bu faktorlar kompleks halda Azərbaycanın xarici siyasətində Asiya-Sakit okean istiqamətinin də mühüm yer tutmasını şərtləndirir. Bu prosesdə, şübhəsiz ki, Mərkəzi Asiya regionunun xüsusi yeri vardır. Azərbaycan həmin dövlətlərlə aktiv əməkdaşlıq siyasətini yeridir ki, bu da Uzaq Şərq istiqamətində əməkdaşlığı gücləndirmək üçün meydan rolunu oynaya bilər. Mərkəzi Asiya dövlətləri ilə Azərbaycanın münasibətlərinin türkdilli dövlətlərin əməkdaşlığını inkişaf etdirmək müstəvisində də qurması əlavə imkanlar açmaqdadır.

Azərbaycanın xarici siyasətinin özünəməxsus xüsusiyyətlərindən biri onun balanslaşdırılmış xarakter daşıması ilə səciyyələnməsidir. Ölkəmizin geosiyasi vəziyyəti və üzləşdiyi problemlər xarici siyasət kursunda müəyyən tarazlığı gözləməyi, Azərbaycanın manevr imkanlarını saxlamağı və regionda möhkəmlənmək uğrunda mübarizə aparan müxtəlif güc mərkəzləri arasındakı münasibətlərdən səmərəli istifadə etməyi zəruri edirdi. Azərbaycan Prezidenti Heydər Əliyevin xarici ölkələrə səfərləri, həmin ölkələrin dövlət başçıları, digər rəhbərləri və iş adamları ilə keçirdiyi məhsuldar görüşlər ikitərəfli və çoxtərəfli əməkdaşlığın gücləndirilməsinə təkan vermiş, onun keyfiyyətcə daha yüksək mərhələyə qədəm qoymasına münbit şərait yaratmışdır.

Heydər Əliyevin uğurlu xarici siyasət fəaliyyətinin daha bir məqamı Azərbaycanın nüfuzlu beynəlxalq və regional təşkilatlarla münasibətlərinin yaradılması və daha yüksək səviyyəyə qaldırması ilə diqqəti cəlb etmişdir. Beynəlxalq təşkilatlara üzv olmaq, onlarla səmərəli iş qurmaq Azərbaycanın problemlərini, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün böyük əhəmiyyət kəsb edir. Məhz buna görə də Azərbaycan BMT, ATƏT, Avropa Şurası, MDB, GUAM, İKT, QİƏT, İƏT kimi beynəlxalq təşkilatların üzvü olmaqla bərabər, Avropa İttifaqı, NATO, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər təşkilatlarla da fəal əməkdaşlıq edir.

Dünyanın nüfuzlu beynəlxalq təşkilatlarında fəal təmsilçilik açıq və demokratik cəmiyyət quruculuğu yolu ilə sürətlə addımlayan müstəqil Azərbaycan dövlətinin xarici siyasət strategiyasında bu gün də aparıcı istiqamətlərdən birini təşkil edir. Ölkəmizin nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq münasibətləri yüksələn xətt üzrə inkişaf edir. Bu təşkilatlarla siyasi, iqtisadi, mədəni, humanitar, hərbi və digər sahələri əhatə edən əməkdaşlıq əlaqələri çoxşaxəli xarakter daşımaqla Azərbaycanın milli maraqlarının daha dolğun şəkildə ifadə olunmasına, beynəlxalq aləmdə aparıcı rol oynayan dövlətlərlə qarşılıqlı münasibətlərin möhkəmləndirilməsinə yönəlmişdir.

Azərbaycanın ardıcıl şəkildə Avratlantik məkanına inteqrasiyası da Heydər Əliyevin xarici siyasətinin əsas istiqamətlərindən idi. Belə ki, 1994-cü ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı yeni müstəqillik qazanmış ölkələrə təklif olunduqdan dərhal sonra Heydər Əliyev Brüsselə səfər edərək ölkəmizin bu proqrama qoşulması haqqında çərçivə sənədini imzalamışdır. Sonralar o, NATO-nun sammitlərində iştirak etmiş və Azərbaycanın Şimali Atlantika Alyansı ilə tərəfdaşlığının əsas prioritetlərini müəyyən etmişdir.

Ötən illərdə olduğu kimi, indi də Avropa və Avratlantik strukturlara inteqrasiya Azərbaycan xarici siyasətinin mühüm istiqamətini təşkil edir. Avropa və Avratlantik birliyin dəyərləri ilə bölüşən Azərbaycan, çoxtərəfli Transatlantik təhlükəsizlik əməkdaşlığı proqramlarını uğurla inkişaf etdirərək Avropa qitəsində və onun sərhədlərindən kənarda təhlükəsizlik və sabitliyə töhfə verir. Bu gün NATO ilə regional və enerji təhlükəsizliyi, terrorizmlə mübarizə, kütləvi qırğın silahlarının yayılmaması, narkotiklərin qeyri-qanuni dövriyyəsi və insan alveri, sərhədlərin mühafizəsi, fövqəladə halların fəsadlarının aradan qaldırılması, təhlükəsizlik və digər sahələrdə islahatlar istiqamətində əməkdaşlıq uğurla inkişaf edir. Azərbaycan Avratlantik Tərəfdaşlıq Şurası və digər vasitələrlə NATO ilə mümkün tərəfdaşlıq mexanizmlərindən tam şəkildə bəhrələnir. NATO ilə fəal siyasi dialoq qarşılaşdığımız birgə çağırışlar üzrə ortaq anlayışın yaradılması və möhkəmləndirilməsinə imkan yaradır. Azərbaycan Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planının növbəti fazasını açan və NATO ilə siyasi dialoqun dərinləşdirilməsini, müdafiə və təhlükəsizlik sahələrində islahatların həyata keçirilməsini, elm və ictimai diplomatiya sahəsində əməkdaşlığı nəzərdə tutan Fəaliyyət Planı üzrə ikinci sənədin icrasını uğurla başa vurmuşdur ki, bu da növbəti illərdə Azərbaycan-NATO münasibətlərini istiqamətləndirəcəkdir.

Heydər Əliyevin xarici siyasət kursunun digər bir mühüm prioriteti Avropa İttifaqı ilə münasibətlərin qurulması və inkişafı idi. Azərbaycan bu nüfuzlu qurumla əməkdaşlığında milli iqtisadiyyatı səmərəli inkişaf etdirməyi, milli iqtisadiyyatın Avropanın iqtisadi və maliyyə məkanına tam inteqrasiyasını və ümumavropa proseslərində, xüsusən Avropa təhlükəsizliyinin sabit və səmərəli arxitekturasının qurulmasında öz rolunu və əhəmiyyətini daim artırmağı qarşısına məqsəd qoymuşdur. Avropa İttifaqı ilə Azərbaycan arasında 1996-cı ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi siyasi dialoq, demokratik institutların inkişafına dəstək, iqtisadi əməkdaşlıq və sərmayələrin təşviqi kimi mühüm proseslərdə çərçivə bazası rolunu oynamaqdadır. Avropa İttifaqının göstərdiyi yardım Azərbaycanda islahatlar prosesinin sürətləndirilməsinə, müxtəlif layihələrin həyata keçirilməsinə yönəldilmişdir. Bütün bunlar Heydər Əliyevin uğurlu siyasəti sayəsində Azərbaycan iqtisadiyyatının inkişafına xidmət edən amillərdəndir. Bu siyasət bu gün də səylə davam etdirilir. Təsadüfi deyil ki, Azərbaycan dünyanın və dünya siyasətinin mərkəzinə çevrilmiş Avropanın ən mühüm istiqamətlər üzrə tərəfdaşı kimi tanınır. 2004-cü ildə Azərbaycanın Avropa İttifaqı tərəfindən "Yeni qonşuluq siyasəti"nə daxil edilməsi qarşılıqlı iqtisadi inteqrasiyanın və siyasi əməkdaşlığın genişlənməsinə təkan vermişdir. 2006-cı ildə "Yeni qonşuluq siyasəti" çərçivəsində ikitərəfli fəaliyyət planı imzalanmış və əməkdaşlığın əsas istiqamətləri müəyyənləşdirilmişdir. Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış "Enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında" Anlaşma Memorandumu da birgə fəaliyyət üçün yeni imkanlar açır. 2009-cu ilin may ayından Azərbaycan Avropa İttifaqı ilə "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində də əməkdaşlıq etməyə başlamışdır. Bu proqram üzrə Praqa zirvə görüşünün Birgə Bəyannaməsinin imzalanması Azərbaycan ilə Avropa İttifaqı arasında gələcək yaxınlaşma və əməkdaşlığın inkişafına yeni təkan vermişdir. Zirvə görüşü çərçivəsində Transxəzər enerji daşıyıcıları layihələrini dəstəkləyən və dövlətimizin enerji təhlükəsizliyinin təminatına yönələn maraqları əks etdirən "Cənub Dəhlizi-Yeni İpək Yolu" Bəyannaməsinin qəbul edilməsi, eyni zamanda, ötən ilin dekabrında Avropa İttifaqının bir sıra ölkələrlə, o cümlədən Azərbaycan ilə assosiasiya sazişi ilə bağlı danışıqlara başlaması niyyətində olduğunu bəyan etməsi xüsusi diqqətə layiqdir.

Prezident Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində 2001-ci ilin yanvarında Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv qəbul edilərək ümumavropa ailəsinə qovuşmuş və burada öz layiqli yerini tutmuşdur. Bununla da ölkəmizdə hüquqi islahatların uğurla aparılması, demokratik, hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi kimi bəşəri dəyərlərə dönmədən əməl olunması özünün layiqli qiymətini almışdır. Bu nüfuzlu panavropa qurumu ilə sıx əməkdaşlıq şəraitində Azərbaycan qanunun aliliyinə əsaslanan demokratik cəmiyyət quruculuğunu indi də müvəffəqiyyətlə davam etdirir. Ölkədə demokratikləşmə prosesləri, xüsusilə vətəndaş cəmiyyəti institutlarının gələcək inkişafı, vətəndaşların hüquq və əsas azadlıqlarının müdafiəsinin təmin edilməsi, dövlət idarəçiliyi sahəsində səmərəliliyin artırılması və digər məsələlər Azərbaycanın Avropa Şurası, onun Parlament Assambleyası, ATƏT/DTİHB, eləcə də aparıcı qeyri-hökumət hüquq müdafiə təşkilatları ilə əməkdaşlığı da diqqət mərkəzində saxlanılır.

Prezident Heydər Əliyevin uğurlu xarici siyasət kursunun mühüm tərkib hissələrindən biri 2001-ci il 11 sentyabr hadisələrindən dərhal sonra Azərbaycanın ABŞ başda olmaqla antiterror koalisiyasına qoşulması və terrorizmə qarşı mübarizədə öz səylərini əsirgəməməsidir. Erməni terrorundan əziyyət çəkən bir ölkə kimi

Azərbaycan dövləti bu problemin aradan qaldırılması üçün beynəlxalq qurumlar və ayrı-ayrı ölkələrlə geniş əməkdaşlıq etmişdir. Bu gün Azərbaycan beynəlxalq terrorizm və kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə ilə bağlı çoxtərəfli və ikitərəfli çərçivədə beynəlxalq əməkdaşlığa fəal cəlb olunmuşdur. Terrorizmə qarşı mübarizəyə dair bütün beynəlxalq sənədlərə qoşulan Azərbaycan bu sahəyə dair daim məlumat mübadiləsi həyata keçirir və müvafiq məruzələr hazırlayır. Azərbaycanın sülhməramlıları Kosovo, İraq və Əfqanıstanda beynəlxalq birliyin digər üzvlərindən olan əsgərlərlə çiyin-çiyinə xidmət göstərmişlər. Azərbaycan hökuməti və şirkətlərinin Əfqanıstana yardımı və bu ölkənin bərpası ilə bağlı səyləri ehtiyac içində yaşayan əhali üçün də imkanlar yaradır.

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars kimi meqalayihələr nəinki region miqyasında, habelə bütün Avrasiya məkanı üçün xüsusi əhəmiyyətə malikdir. Bu qlobal partnyorluq Qara dəniz və Xəzər dənizi regionunu ədalətli və bərabər əməkdaşlıq meydanına çevirmiş, dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsini təmin etmişdir.

Xəzər dənizinin zəngin enerji ehtiyatlarının işlənməsi və dünya bazarlarına nəql edilməsi istiqamətində həyata keçirilən irimiqyaslı layihələrin uğurla başa çatdırılması əhalinin rifahının yaxşılaşması, ölkəmizin iqtisadi potensialının dirçəldilməsi, xarici investisiyaların həcminin artması üçün geniş imkanlar yaratmışdır. Azərbaycanın 2004-cü ildə Böyük Britaniyanın Baş naziri Toni Bleyer tərəfindən irəli sürülmüş Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünə qoşulması da bunun bariz göstəricisidir. Bütün bunlar Azərbaycanın müstəqil dövlət olaraq öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını sonadək müdafiə etmək əzmində olduğunu, ölkəmizin enerji siyasətinin düzgün və uzaqgörənliklə həyata keçirildiyini bir daha təsdiqləyir. Bu, Avropanın enerji təhlükəsizliyi ilə bağlı baş verən bəzi proseslərdən sonra özünü daha qabarıq göstərir.

Heydər Əliyevin şəxsi təşəbbüsü və nüfuzu, uzaqgörən siyasəti sayəsində tarixi İpək Yolunun bərpası ilə bağlı kommunikasiya layihələrinin həyata keçirilməsində Azərbaycanın həlledici rol oynaması, proqramın icraçı katibliyinin Bakıda yerləşməsi haqqında qərarın qəbul edilməsi də ölkəmizin iqtisadi inkişafına təkan verməklə yanaşı, onun beynəlxalq və regional siyasətdə mövqeyinin güclənməsini şərtləndirmişdir.

Bu gün Azərbaycan dünya miqyasında geostrateji əhəmiyyətə malik olan əlverişli coğrafi mövqeyindən, zəngin təbii ehtiyatlarından və böyük potensialından istifadə edərək, Avropa ilə Asiya arasında körpü rolunu səmərəli surətdə həyata keçirir. Cənubi Qafqaz regionu ərazisindən beynəlxalq nəqliyyat və kommunikasiya dəhlizlərinin genişləndirilməsi və Azərbaycanın tranzit imkanlarının gücləndirilməsi ölkə iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı strategiyasının vacib elementidir. Bu mənada, Azərbaycan Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi (TRASECA) layihəsi, habelə Şimal-Cənub nəqliyyat dəhlizinin həyata keçirilməsinə fəal cəlb olunmuşdur. Habelə, Azərbaycan Türkiyə və Gürcüstanla geostrateji əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin qurulması istiqamətində əməkdaşlıq edir. Bu xəttin həyata keçirilməsi regional əməkdaşlığın sürətləndirilməsi və gücləndirilməsi üçün vacib addım olacaq, eyni zamanda, qlobal təsirlərə malik yeni regional imkanlar yaradacaqdır.

Azərbaycanın Şərqlə Qərbin, Şimalla Cənubun əsas nəqliyyat yollarının kəsişdiyi məkanda yerləşməsi və regional avtomobil və dəmir yol şəbəkəsinə birləşən sürətlə inkişaf edən milli nəqliyyat infrastrukturu ölkənin strateji əhəmiyyətini artırır. Azərbaycan, həmçinin Şərq-Qərb nəqliyyat dəhlizinin əsas hissəsi olacaq və 20-dək ölkəni internet, telekommunikasiya sistemləri, elektron informasiya resursları ilə təmin etməyə qadir olan Trans-Avrasiya Super İnformasiya Magistralı yaratmaq təşəbbüsü ilə çıxış etmişdir.

Azərbaycan diasporunun təşkilatlanması, dünya azərbaycanlılarının Azərbaycan Respublikası ilə əlaqələrinin hüquqi, siyasi, ictimai və mədəni əsaslarının gücləndirilməsi Prezident Heydər Əliyevin xarici siyasət konsepsiyasında mühüm yer tutmuşdur. Heydər Əliyev özünəməxsus uzaqgörənlik və müdrikliklə xarici siyasətdə strateji hədəfləri düzgün müəyyənləşdirərək demişdir ki, müasir dövrdə hər bir dövlətin qüdrəti yalnız iqtisadi resurslarla deyil, həm də onun xaricdə formalaşdırdığı diaspor və lobbinin gücü ilə ölçülür. Bu sahəyə xüsusi diqqət yetirmədən xarici siyasətdə hansısa ciddi nailiyyətlər qazanmaq, habelə milli məsələlərin beynəlxalq müstəvidə qaldırılmasına nail olmaq mümkün deyil. Məhz bu səbəbdən də Azərbaycan hakimiyyəti dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün üzərinə düşən tarixi missiyanı məsuliyyətlə yerinə yetirməyə, bu sahədə sistemli və ardıcıl siyasət yeritməyə çalışmışdır. Xarici ölkələrdə yaşayan soydaşlarımızla çoxşaxəli münasibətlər qurmaq, onları ideoloji-siyasi müstəvidə silahlandırmaq və ümummilli mənafelər naminə səfərbər etmək Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdən birinə çevrilmişdir. Bu sahədə dövlət siyasətinin məqsədi xaricdə yaşayan soydaşlarımızın milli özünəməxsusluğunu qorumaq və inkişaf etdirmək, Azərbaycanla əlaqələrini genişləndirmək, habelə digər hüquqlarını reallaşdırmaqdan ibarətdir. Ermənistanın həmin tarixi mərhələdə getdikcə genişlənən işğalçılıq siyasətini, erməni lobbisinin beynəlxalq ictimaiyyəti riyakarlıqla çaşdırmaq cəhdlərini ciddiliklə nəzərə alan ulu öndərimiz xarici ölkələrdə Azərbaycan

diasporu və lobbisinin formalaşdırılması məsələsini mühüm dövlət siyasəti səviyyəsinə qaldırmışdır. Diaspor və lobbi quruculuğuna göstərilən xüsusi diqqət Heydər Əliyevin yüksək diplomatik və peşəkar siyasətçi keyfiyyətlərindən qaynaqlanırdı.

Azərbaycan regionun nadir ölkələrindən biridir ki, çətin geosiyasi mühitdə müstəqil xarici siyasət yürüdür. Bu istiqamətdə əsas diqqət Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tezliklə bərpa edilməsi, qonşu dövlətlərlə mehriban və qarşılıqlı surətdə faydalı münasibətlərin inkişaf etdirilməsi, regionda sabitliyin və təhlükəsizliyin gücləndirilməsi, Xəzər dənizi hövzəsinin demilitarizasiyası, Avropa və Transatlantik strukturlarına inteqrasiya məsələlərinə və s. yönəldilmişdir.

Azərbaycan beynəlxalq əlaqələr sisteminə cəlb olunan bütün dövlətlərə münasibətdə onların ərazi böyüklüyü, hərbi gücü və iqtisadi potensialından asılı olmayaraq, dövlətlərin suveren bərabərliyi prinsipinə əsaslanan praqmatik xarici siyasət həyata keçirir. Şəffaflıq və öncədən müəyyənləşdirmə Azərbaycanın xarici siyasətini səciyyələndirən əsas xüsusiyyətlərdir. Azərbaycan bütün ölkələrlə dostluq və qarşılıqlı səmərəli ikitərəfli və çoxtərəfli əlaqələrini inkişaf etdirməklə öz regionunda və onun sərhədlərindən kənarda sülh içində birgə yaşama və mehriban qonşuluğu təşviq edir.

Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunun davamlılığını təmin edən Prezident İlham Əliyevin yüksək diplomatik məharəti sayəsində Azərbaycan yalnız regionda gedən proseslərə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır. Bu gün dünyanı narahat edən bir sıra məsələlərdə böyük dövlətlərin başçıları Azərbaycanın – onun rəhbərinin mövqeyi ilə hesablaşırlar. Avropa və Asiyanın qovuşuğunda yerləşən mühüm geostrateji məkan kimi Azərbaycan regionda sülhün və sabitliyin təmin olunması üçün dayaq nöqtəsi kimi ən perspektivli tərəfdaş hesab edilir. Ölkəmiz bütün regional məsələlərdə əsas oyunçudur və regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycansız gerçəkləşə bilməz.

Azərbaycan qonşu dövlətlərlə təhlükəsizliyin təmini aspektində regional lider səviyyəsində münasibətlər qurmuşdur, enerji təhlükəsizliyi məsələsi ilə əməkdaşlığın digər sahələri arasında unikal harmoniya formalaşmışdır. Rusiya, İran və Türkiyə Azərbaycanla regional lider qismində əlaqələr qurur və bunu açıq etiraf edirlər. Bu əlaqələr qarşılıqlı faydalılıq prinsipi üzrə yaradılıb və təkmilləşdirilir. Azərbaycan diplomatiyasının regional qurumların yaradılmasındakı fəallığı hamıya məlumdur. Bu qurumların tərkibində aktiv iştirak edən ölkəmiz, eyni zamanda, ikitərəfli əlaqələrin inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli addımlarını atmaqdadır.

Rusiya ilə münasibətlərin dinamikası və əhatəliliyi bunun əyani sübutlarındandır. İndi iki dövlət arasında bütün sahələr üzrə əməkdaşlıq yüksələn xətt üzrə inkişaf edir. Türkiyə Azərbaycanın ən yaxın müttəfiqi kimi diqqət mərkəzindədir. İranla əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində Azərbaycan lazım olan bütün addımları atır. Bu proseslərdə Azərbaycanın xarici siyasəti üçün əsas meyar regionun sabitliyi, təhlükəsizliyi və inteqrasiyası üçün çalışmaqdır.

Bütövlükdə, Azərbaycanın xarici siyasəti ölkənin milli təhlükəsizliyinin etibarlı təminatıdır. Bu, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilən müasir xarici siyasət kursunun məzmunundan qaynaqlanır. Əsasını varislik ilə yenilik arasındakı tarazlıq təşkil edən bu model mövcud konyunkturanın dəyişikliklərinə əməli surətdə cavab verməyə, eyni zamanda, ölkənin davamlı inkişafını təmin etmək üçün əlverişli xarici şəraitin yaradılmasına yönələn diplomatik strategiyanın saxlanılmasına imkan yaratmışdır.

Qeyd olunmalıdır ki, qlobal miqyasda dünya siyasəti və diplomatiyasının müəyyən problemləri mövcuddur. Onları hətta "siyasət və diplomatiyanın ümumi böhranı" da (Ramiz Mehdiyev. "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə kursu") adlandırırlar. Bu şəraitdə Azərbaycan dövlətinin xarici siyasəti həm milli maraqları gözləyir, həm də dünya siyasətinin bütün subyektlərinin bərabərhüquqlu iştirakını təmin edən fəaliyyət modelinə üstünlük verir. Azərbaycanın xarici siyasətində çoxvektorluq üstünlük təşkil etdiyindən onun qlobal miqyasda geosiyasi çəkisi durmadan artır. Bu məqamları nəzərə alsaq, belə nəticəyə gələ bilərik ki, Azərbaycanın regional və qlobal siyasətin müstəqil mərkəzi olmasında, Heydər Əliyev tərəfindən müəyyən edilmiş çoxvektorlu xarici siyasət kursu həlledici rol oynamışdır. Həmin məqam ölkəmizin dinamik inkişafı üçün geniş perspektivlər açır.

"**Xalq qəzeti**".-2010.-9 may.-N 100.-S.5.

# HEYDƏR ƏLİYEVİN ZƏNGİN İDARƏÇİLİK İRSİ AZƏRBAYCAN XALQININ MİLLİ SƏRVƏTİDİR

**Seyfəddin QƏNDİLOV,**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının rektoru, əməkdar elm xadimi,
professor, Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvü

**Qədim tarixə malik Azərbaycanın dövlətçilik ənənəsi də qədim dövrlərdən başlayır. Eramızdan əvvəl birinci minilliyə gedib çıxan Azərbaycan 3 min əvvəl də, elə indinin özündə də dünyada özünəməxsus yer tutmuşdur. Dünyanın istər mədəniyyət və incəsənət, istər elm, istərsə də siyasi tarixinə Azərbaycan daim öz töhfəsini vermiş və bu tarixi daha da zənginləşdirmişdir. Bununla bərabər, ölkəmiz yadelli işğalçıların hücumuna, təzyiqinə və işğalına da məruz qalmışdır. Azərbaycan tarixinin müxtəlif taleyüklü məqamları və dövrlərində doğma Vətənimizi həmişə düşdüyü ağır vəziyyətlərdən çıxarmaq vəzifəsi böyük şəxsiyyətlərin üzərinə düşüb.**

Azərbaycanın çoxəsrlik tarixinə nəzər saldıqda bir daha şahidi oluruq ki, ölkəmizin və xalqımızın yolunda hələ Heydər Əliyev kimi xidmətləri olan ikinci bir şəxsiyyət olmayıb. Azərbaycan dövləti və xalqı üçün misilsiz işlər görmüş ümummilli lider Heydər Əliyev tanrının bizə bəxş etdiyi xilaskardır.

## Azərbaycan tarixində keyfiyyətcə yeni mərhələ

Azərbaycanın qədim tarixini vərəqlədikcə 2-ci minilliyin sonuncu yüzilliyinin çox kəşməkəşli keçdiyi aydın olur. XX əsrin əvvəllərində Azərbaycan müstəqillik əldə etdi, lakin qısa müddətdən sonra onu itirdi. Ölkəmiz zor gücü ilə Sovet imperiyasının tərkibinə qatıldı. Həmin vaxtdan bizə qarşı ayrı-seçkilik kampaniyası başlandı. Azərbaycanın milli mədəniyyətinin, milli düşüncəli ziyalılarının məhv edilməsi, Sibirə sürgünü məhz bu dövrə təsadüf edir. 1920-40-cı illərdə bu kampaniya daha sərt şəkildə aparılırdı. O dövrlərdə Azərbaycana rəhbərlik etmiş şəxslərin fəaliyyətinə, respublikada həyata keçirdikləri tədbirlərin təhlilinə nəzər yetirdikdə bir daha aydın olur ki, həmin rəhbərlərin əsas vəzifələri yalnız imperiyanın göstərişlərini yerinə yetirməkdən ibarət olub. Milli düşüncəli ziyalılarımızın isə bir-birinin ardınca sıradan çıxarılmasının qarşısının alınması, onların müdafiəsi istiqamətində heç bir təşəbbüskarlıq göstərilməyib. Gəlin diqqət yetirək: Azərbaycanın sovet dövrü rəhbərlərinin hansının hakimiyyətdə olduğu illərdə respublika və xalq SSRİ daxilində və xaricdə daha geniş tanındı, nüfuz sahibi oldu? Bu illər ərzində Azərbaycan xalqının milli kimliyini özündə qoruyub saxlayan və inkişaf etdirən, mədəniyyət və incəsənətə, elmə, təhsilə, bu sahənin mütəxəssislərinə, tanınmış ziyalılara münasibət necə idi? Onlar addımbaaddım təqib olunur, milliliyi əks etdirən hər hansı bir fikir səsləndirdikdə dərhal həbs edilir və ya sürgün olunurdular. Azərbaycanda milli dil və tarixlə bağlı məsələlərdən söhbət açmaq qeyri-mümkün idi. Respublikada siyasi hakimiyyətin daxilində yekdilliyin, hakimiyyətlə xalq arasında birliyin olmaması, kadrların seçilib yerləşdirilməsində yerli ziyalılara bir o qədər də üstünlük verilməməsi nəticəsində vəziyyət getdikcə gərginləşirdi. Hakimiyyət daxilində intriqalar hökm sürdüyündən respublikanın iqtisadiyyatı gündən-günə geriləyirdi. Bu da əhalinin həyat tərzini pisləşdirir, sosial vəziyyətini ağırlaşdırırdı.

60-cı illərin sonlarından başlayaraq, xalqın qarşılaşdığı problemlərin həllində və ölkənin inkişafında ziyalılara göstərilən qayğıda, milli düşüncənin, milli ruhun qorunması istiqamətində böyük, strateji mərhələnin əsası qoyuldu. 1967-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə Heydər Əlirza oğlu Əliyev təyin edildikdən sonra adət-ənənələrimizin qorunması və milli düşüncəli ziyalıların yaradıcılıq fəaliyyəti üçün respublikada əlverişli şərait yaradılması istiqamətində əməli işlər görüldü. Millətsevərlik fəaliyyətlərinə, milli təəssübkeşliyinə görə təqib olunan, hər an təzyiqlərə məruz qalan ziyalılarımız bir qədər rahat nəfəs aldılar. Onların təqiblərinə demək olar ki, son qoyuldu. Lakin daxili gərginlik hələ də səngimək bilmirdi. İqtisadiyyatdakı gerilik heç cürə aradan qaldırılmır, intriqalar baş alıb gedirdi. Təbii ki, bu da Moskvanı çox ciddi narahat edirdi. Söz yox ki, Heydər Əliyevin Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə təyinatından sonra Azərbaycanın ictimai həyatında dəyişiklik yaranmışdı, ancaq digər sahələrdə kadrların, xüsusilə respublika rəhbərliyinin fəaliyyəti Moskvanı qane etmirdi. Ona görə də Azərbaycana yeni bir rəhbərin təyin edilməsi mərkəzi çox ciddi düşündürürdü. Nəhayət, 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda Heydər Əliyevin respublika rəhbəri seçilməsi ilə bütün narahatçılıqlara son qoyuldu. Bununla da Azərbaycan tarixində keyfiyyətcə yeni mərhələ başlandı. Azərbaycanda dövlət idarəçiliyində, təsərrüfatın bütün sahələrində yeni nəfəs, yeni iş metodunun əsası qoyuldu. Köhnə rəhbər tənqid olunmadı, onun iş metodu pislənilmədi, əksinə ona xüsusi qayğı və hörmətlə yanaşıldı. Bu da sərt sovet rejimi dönəmində nadir hadisələrdən hesab olunurdu. Azərbaycanın yeni rəhbərinin bu hərəkəti

xalqla hakimiyyət arasında və daxildə birliyin, həmrəyliyin yaradılması istiqamətində layiqli nümunə idi. Bu, Azərbaycan xalqının uğurlu inkişafının və tərəqqisinin milli birlikdə olduğunu təsdiqləyirdi. Məhz bu yolla geniş planları həyata keçirmək, Azərbaycanı dirçəldərək ittifaq miqyasında qabaqcıllar cərgəsinə qoşmaq, beynəlxalq aləmdə tanıtmaq olardı.

Xalq milli adət-ənənələrin qorunub saxlanılmasının, milli düşüncəli ziyalıların – öz millətsevərliyini ört-basdır edə bilməyənlərin təqib olunmadığını gördükcə sabaha daha böyük ümidlə baxır, Heydər Əliyevin rəhbərliyi altında siyasi hakimiyyət ətrafında sıx birləşirdi. Bununla da tarixən qarşıda duran ümummilli problemlərin həlli üçün əlverişli şərait yaranır, millətsevərlik baxışları daha qətiyyətli şəkildə formalaşırdı. Neçə illərdən bəri xalqı düşündürən problemlər böyük əzm və inadla aradan qaldırılır, reallaşdırılması mümkün hesab edilməyən işləri heyrətamiz siyasi iradə nümayiş etdirərək reallaşdırırdı. Çox sərt rejimi ilə yaddaşlara əbədi həkk olunan sovet sistemi şəraitində Azərbaycan xalqı üçün çox vacib və zəruri hesab edilən xeyli mürəkkəb məsələlər milli mənafe naminə böyük müvəffəqiyyətlə həll edilirdi.

Heydər Əliyev çox yaxşı bilirdi ki, millətin millət kimi formalaşmasında və tanınmasında ilk növbədə elm, təhsil mədəniyyət, incəsənətin inkişafına, milli-mənəvi dəyərlərin qorunmasına xüsusi diqqət yetirilməlidir. Yalnız bu yollarla Azərbaycan istiqlalının təməlini hazırladı.

Böyük siyasətçilərin, dövlət idarəçiliyi sahəsində mükəmməl biliyə malik olanların məharəti mümkün olmayanı mümkün etməyə qadirdir. Bir vaxtlar ABŞ Prezidenti olmuş B. Vilson deyirdi: "Əgər iş alınmırsa, elə etmək lazımdır ki, o, alınsın!" Bu hikmətli kəlam sanki Heydər Əliyev üçün deyilmişdi. Çünki ölkəyə rəhbərlik etdiyi müddətdə çox çətin və mürəkkəb hesab olunan sahələri istədiyi səviyyəyə qaldırır, necə deyərlər, təsəvvürlərdə alınmayan iş kimi canlanan problemlərin həllinə inadla, böyük ustalıqla nail olurdu. Heydər Əliyevin ciddi kommunist rejimi dövründə respublikaya rəhbərliyi Azərbaycan xalqının inkaredilməz gerçək tarixidir. O, düşüncəsi, uzaqgörənliyi, geniş dünyagörüşü və xalqın, millətin tərəqqisi yolunda yerinə yetirdiyi missiya ilə millətin atasına çevrildi. Sovet dövründə respublikaya rəhbərlik edən şəxs milli ruh, millətin gələcək müstəqilliyi, xalqın milli-mədəni intibahı naminə fəaliyyət göstərərdisə onun aqibətinin necə olacağı hamıya bəlli idi. Heydər Əliyev də bunu çox yaxşı bilirdi. Lakin buna baxmayaraq, o, həyatını riskə qoyaraq bütün bunlara getdi. Bu, ilk növbədə onun xalqına, millətinə, Vətəninə necə böyük məhəbbət, sevgi ilə bağlılığından, böyük millətsevərliyindən irəli gəlirdi. Bir fakta diqqət yetirək. 1969-cu ilin iyulundan 1982-ci ilin dekabrınadək Heydər Əliyevin sədrliyi ilə keçirilən Azərbaycan KP MK-nın bürolarının demək olar ki, bütün iclaslarında xalqımızın tarixi, mədəniyyəti, ədəbiyyatı, mənəviyyatı, milli-mənəvi sərvətləri, adət-ənənələri, elmin, təhsilin və digər zəruri sahələrin inkişafı ilə bağlı məsələlər geniş müzakirə olunaraq mühüm əhəmiyyətli qərarlar qəbul olunmuşdur.

**Yüksəliş illəri**

Heydər Əliyevin siyasi fəaliyyətinin əsasını Azərbaycan xalqının birliyi, hakimiyyət daxilində yekdillik təşkil edirdi. Qısa vaxt ərzində hakimiyyətlə xalq arasında vəhdətə nail olunması xalqın Heydər Əliyevə olan inamını daha da artırdı. Azərbaycanlıları yüksək dövlət, partiya və müxtəlif sahələrdə, xüsusilə təsərrüfat strukturlarında vəzifələrə yerləşdirməklə siyasi hakimiyyəti möhkəmləndirir, milli ruhu qaldırır, respublikanın hərtərəfli inkişafı üçün zəmin yaradırdı. O, Azərbaycan ərazisində yaşayan bütün vətəndaşların vahid amal ətrafında birləşməsinə nail olduqdan sonra diqqəti digər sahələrin inkişafına yönəltdi. Ümumiyyətlə, 1969-1982-ci illər Azərbaycanın tarixində həmişə yüksəliş, tərəqqi, inkişaf kimi qalacaq. Bu illər ərzində elə bir sahə olmadı ki, Azərbaycan ittifaqın digər respublikalarından geri qalsın. Elm, təhsil, səhiyyə, mədəniyyət və incəsənət, kənd təsərrüfatı, sənaye sahələri sürətlə inkişaf etdirildi. Milli-mənəvi dəyərlərimiz qorunub saxlanıldı. Moskvanın təzyiqlərinə baxmayaraq, dini və mənəvi dəyərlərin qorunub-saxlanılması, habelə inkişafı diqqət mərkəzində olurdu. Azərbaycan xalqının qədim tarixə malik Novruz bayramı Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə respublika miqyasında böyük təntənə ilə qeyd edilirdi. Bu bayramın sovet hakimiyyəti illərində Azərbaycanda kütləvi şəkildə keçirilməsi bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Novruz bayramının sovet dönəmində belə təmtəraqlı keçirilməsi xalqın milli ruhunu dirçəldir, yenidən özünə qaytarır, milli irsə, azərbaycançılığa böyük məhəbbət yaradır, milli özünüdərki gücləndirirdi. Xalq belə milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanılmasını gördükcə sanki yuxudan oyanır, yenidən özünə qayıdırdı. Axı, neçə-neçə ziyalılarımız belə bayramların, milli adət-ənənələrimizin inkişafının qurbanı olmuşdu. Yenə də həmin sərt sovet rejimi, həmin insanlar idi. Ancaq dəyişən bircə respublikanın rəhbəri idi. Bu dəfə Azərbaycana böyük siyasi xadim, böyük azərbaycanlı Heydər Əliyev rəhbərlik edirdi. Azərbaycanın kommunist liderinin bu dərəcədə millətsevər olması xalqın gələcəyə olan inamını daha da artırdı, müstəqillik arzusunu getdikcə reallaşdırdı.

Heydər Əliyev azərbaycanlı gənclərin dünyanın müasir elm və mədəniyyət nailiyyətlərini mənimsəmələrini daim diqqət mərkəzində saxlayırdı. Qüdrətli şəxsiyyət deyirdi ki, dövlət idarəçiliyində uğurlar qazanmaq üçün savadlı, bilikli kadrlara, özü də milli kadrlara böyük ehtiyac var. Bu ehtiyac tam ödənildiyi halda bütün sahələr üzrə müvəffəqiyyətlərə imza atmaq mümkün olar. Ona görə də gənclərin SSRİ-nin qabaqcıl ali məktəblərində dövlət hesabına təhsil almalarına nail olurdu. Bunun nəticəsi olaraq Azərbaycan başdan-başa savadlılar diyarına çevrildi. Azərbaycanın hətta ucqar kənd məktəblərində, sənaye və təsərrüfat sahələrində ali təhsillilər üstünlük təşkil edirdilər. Tarixi şəxsiyyətin 1969-82-ci illərdə Azərbaycanın inkişafı naminə gördüyü işlərdən yazsaq, cild-cild kitablara sığan deyil. Ana dilimizin qorunub saxlanılmasında, belə ağır bir dövrdə Konstitusiyada dövlət dili kimi təsbit olunmasında, milli-mənəvi dəyərlərimizin qorunub-saxlanılmasında, mədəni-maarif, səhiyyə sahələrinin əsaslı şəkildə qurulmasında, respublikanın demoqrafik inkişafında, milli hərbçi kadrların hazırlanması və hərbi vətənpərvərlik tərbiyəsinin inkişafı Heydər Əliyevin xalq, Vətən qarşısında ən böyük tarixi xidmətlərindəndir.

Onu da qeyd edim ki, sovet sistemi şəraitində müttəfiq respublikaların xarici ölkələrlə birbaşa əlaqə qurmaq imkanları yox idi. Ancaq Heydər Əliyev müxtəlif yollarla Azərbaycanı beynəlxalq aləmdə tanıtmağa çalışırdı. O, Azərbaycanı beynəlxalq və Ümumittifaq elmi, mədəni və siyasi tədbirlərin keçirildiyi mərkəzə çevirdi. Xarici ölkələrdə işləməyə göndərilən ixtisaslı azərbaycanlıların sayı artırıldı, beynəlxalq mədəni əlaqələri genişləndirildi və dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılarla əlaqə yaradıldı. Azərbaycan üçün diplomat kadrların hazırlanması da diqqətdən kənarda qalmadı. Xarici ölkələrə səfərləri zamanı orada yaşayan azərbaycanlılarla görüşür, onlara Azərbaycan xalqının dayağı kimi baxırdı. Bununla yanaşı çalışırdı ki, xarici ölkələrdə yaşayan soydaşlarımız Azərbaycan haqqında düzgün, dolğun məlumata, geniş təsəvvürə malik olsunlar. Görülən səmərəli işlər özünü doğrultdu. Sonradan dünya azərbaycanlılarının Bakıya cəm olması, doğma Vətənlə yaxından tanış olmaları, qarşılaşdığımız problemlərin aradan qaldırılmasında həmrəylik nümayiş etdirmələri də qüdrətli şəxsiyyət Heydər Əliyevin gördüyü işlərin uğurlu yekunu idi.

1969-1982-ci illərdə respublikamızın sənayesi nəinki keçmiş ittifaqın bütün respublikalarına, hətta bir sıra qabaqcıl xarici ölkələrə nisbətən daha yüksək sürətlə inkişaf edirdi. 1969-cu ilədək Azərbaycanda 735 böyük sənaye obyekti tikilmişdisə, Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə (cəmi 14 ildə) onların sayı 1048-ə çatdırıldı. Bu illər ərzində Heydər Əliyevin rəhbərliyi ilə yeridilən iqtisadi və sosial siyasət, bunun sayəsində respublika iqtisadiyyatının bütün sahələrinin, elmin və mədəniyyətin inkişaf etməsi, xalqın həyat səviyyəsinin yüksəldilməsi yalnız geniş siyasi dünyagörüşə malik, dövlət idarəçiliyində savadı, biliyi və xalq təsərrüfatının dərin bilicisi olmaqla mümkün idi. Bütün bu xüsusiyyətlərin hamısı böyük azərbaycanlı Heydər Əliyevdə cəmləşmişdi. Onun bu qabiliyyəti, dərin siyasi biliyi, zəkası SSRİ-nin o vaxtkı rəhbərliyinin də diqqətindən yayınmadı və Heydər Əliyev Kremlə çox maddi məsul bir vəzifəyə – Sov. İKP MK Siyasi Bürosunun üzvü seçilməklə, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə aparıldı. Moskvada işlədiyi dövrdə Azərbaycanı bir an da olsun unutmadı. Ürəyi öz milləti , Vətəni ilə bir döyündü. Azərbaycanın daha da inkişafı, tərəqqisi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yeni zavod və fabriklərin açılması istiqamətində qətiyyətli addımlar atdı. Azərbaycanın dünya miqyasında tanınması üçün bütün imkanlardan səmərəli istifadə etdi. Artıq Azərbaycan SSRİ-nin inkişaf etmiş qabaqcıl respublikalarından birinə çevrilmişdi. Təbii ki, bu da mənfur qonşuları qane edə bilməzdi. Ona görə də Heydər Əliyevi SSRİ rəhbərliyindən uzaqlaşdırmaq üçün düşmənlərimiz min hiylə və məkrə əl atdılar. Böyük siyasi xadim həm də SSRİ-nin o vaxtkı rəhbərliyinin təzyiqlərinə də məruz qalmışdı. Mixail Qorbaçov öz məkrli niyyətlərini həyata keçirməkdə yalnız Heydər Əliyevdən ehtiyatlanırdı. Yersiz təqib və təzyiqlərdən cana doymuş Heydər Əliyev nəhayət, tutduğu vəzifəsindən istefa verdi. Sanki bundan sonra Azərbaycanın düşmənlərinin əli-qolu açıldı və Azərbaycanın tarixində növbəti dəhşətli günlər yenidən başladı…

**Böyük qayıdış…**

…1988-ci ildən başlayaraq Azərbaycanda dərinləşməkdə olan ictimai-siyasi, hərbi böhran getdikcə daha geniş vüsət alırdı. Heydər Əliyevin hakimiyyət başında olduğu müddətdə Azərbaycan torpaqlarına qarşı təcavüz planlarını gerçəkləşdirə bilməyən qüvvələr xeyli fəallaşaraq öz niyyətlərini həyata keçirməyə başladılar. O vaxt respublikaya rəhbərlik edən Ə. Vəzirovun qətiyyətsizliyi, qorxaqlığı, dövlət idarəçiliyindəki səriştəsizliyi ölkədə onsuz da ağır olan ictimai-siyasi sabitliyi daha da ağırlaşdırırdı. Bir tərəfdən də SSRİ-nin milli ədavəti qızışdıran rəhbəri Mixail Qorbaçovun Ermənistana açıq-aşkar himayədarlığı, xalqın razılığı olmadan torpaqlarımızı ermənilərə pay verməsi insanları daha da hiddətləndirmişdi. Arxası, dayağı olmayan xalq etiraz səsini qaldırmaq üçün meydanlara çıxdı. “Torpaqdan pay olmaz!” nidaları Kremli lərzəyə gətirdi. Xalqın haqq səsinə tab gətirə bilməyəcəyini görən M. Qorbaçov silahlı qüvvələrdən istifadə etdi. Bundan əvvəl əlləri digər xalqların qanına batan M.Qorbaçov bu dəfə öz təcavüzkar niyyətlərini Azərbaycanda həyata keçirdi.

Azərbaycanın ən yeni tarixinə "Qara Yanvar" kimi düşmüş 1990-cı il yanvarın 19-dan 20-nə keçən müdhiş gecədə yüzdən artıq günahsız Azərbaycan vətəndaşı amansızcasına qətlə yetirildi. Vəziyyətdən çıxış yolu tapa bilməyən Ə. Vəzirov gecə ikən qaçıb aradan çıxdı. Bu qanlı faciə barəsində ilk dəfə haqq səsini qaldıran yenə də Heydər Əliyev oldu. Ağır şəraitdə, nəzarət altında yaşayan böyük şəxsiyyət Moskvada Azərbaycan nümayəndəliyinə gedərək bu faciə barəsində dünya ictimaiyyətinə məlumat verdi. Ə. Vəzirovdan sonra ölkə daxilində vəziyyət daha da gərginləşdi. Hakimiyyəti qoruyub saxlamağa çalışan rəhbərliklə hakimiyyəti ələ keçirməyə çalışan bir qrup qüvvə arasındakı silahlı münaqişə Azərbaycanı real vətəndaş qarşıdurması ilə üz-üzə qoydu. Xaos, anarxiya, respublika hakimiyyətinə tabe olmayan qüvvələrin özbaşınalığı vəziyyəti son həddə çatdırmışdı. Bir-birinin ardınca baş verən erməni terrorları, torpaqlarımızın asanlıqla işğal olunması o vaxtkı rəhbərliyin cəsarətsizliyindən və qətiyyətsizliyindən xəbər verirdi. SSRİ-nin süqutundan sonra Azərbaycanın müstəqillik qazanması bəzi araqarışdıran qüvvələri daha da fəallaşdırdı. Bundan sonra hakimiyyət davası açıq müstəviyə keçdi. A. Mütəllibovun hakimiyyəti atıb qaçmasından sonra meydana çıxan AXC-Müsavat birliyi də dövlət idarəçiliyində çaş-baş qaldı. Bu cütlüyün hakimiyyəti dövründə vəziyyət daha da ağırlaşdı. Artıq müstəqilliyimiz uçurumun bir addımlığında idi. Belə ağır vəziyyətdə xalq Heydər Əliyevi köməyə çağırdı. Həmin dövrdə xalqın müxtəlif təbəqələrinin neçə-neçə nümayəndə heyəti Naxçıvana gedərək Heydər Əliyevdən Bakıya dönüb respublikaya rəhbərliyə gəlməsinə razılıq verməsini xahiş etmişdi. Hətta ölkəni idarə etmək iqtidarında olmayan AXC-Müsavat hakimiyyəti də Heydər Əliyevdən Bakıya gəlməsini inadla xahiş edirdi.

…1993-cü ilin 9 iyunu. Bu tarix xalqımızın yaddaşına əbədi həkk olunub. Heydər Əliyevin Bakıya qayıtması ilə 1969-cu ildə olduğu kimi bu dəfə də Azərbaycanın başı üzərində sanki günəş doğdu. Bu günəşin isti, nurlu şəfəqləri insanlara yeni ruh, təravət və yeni nəfəs bəxş etdi. Həmin il iyunun 15-də ulu öndər Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildikdən sonra xalqda rahat yaşamağa böyük ümid yarandı. Azərbaycanın müstəqilliyinin möhkəmlənəcəyinə və əbədi olacağına, bu yolda qarşıya çıxacaq maneələrin aradan qaldırılacağına tam əminlik yarandı. Çoxillik siyasi təcrübəyə malik müdrik rəhbərin siyasi uzaqgörənlik fenomeni, quruculuq və inkişaf təcəssümü özünü dərhal büruzə verdi. Müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətə başlayanda isə qarşıda duran ən vacib vəzifənin respublikanı müharibə vəziyyətindən çıxarmaq, işğal olunmuş torpaqların hamısını geri qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü, müstəqil respublikanın sərhədlərinin təhlükəsizliyini təmin etmək, yurd-yuvalarından didərgin düşmüş soydaşlarımızı öz doğma yerlərinə qaytarmaq olduğunu bildirmişdi. Ulu öndər qeyd edirdi ki, qarşıda duran çətin, ağır vəzifələrin həyata keçirilməsi üçün Azərbaycana müasir idarəçi, yeni tərzdə düşünən, yeni təfəkkürlü kadrlar lazımdır. Bu sahədə beynəlxalq təcrübəni öyrənməyi tövsiyə edirdi. Həm də bildirirdi ki, Azərbaycanın yerli şəraitinin milli xüsusiyyətlərini də unutmayaq. Bu onun milli-mənəvi dəyərlərimizə nə qədər bağlı qüdrətli bir şəxsiyyət olduğunu göstərirdi.

Heydər Əliyevin 3 yanvar 1999-cu il tarixli Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılması haqqında fərmanı dövlətçiliyimizin möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsi, yeni təfəkkürlü, müasir idarəçi kadrların yetişdirilməsi işinə mühüm qayğı idi. Çünki Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin möhkəmləndirilməsi, beynəlxalq aləmdə daha geniş miqyasda tanınması və şöhrətlənməsi üçün yüksək əxlaqi və mənəvi keyfiyyətləri, özünün vətənpərvərlik və Vətənə hədsiz sədaqəti ilə seçilən kadrların hazırlanması çox vacib idi. Bu gün akademiyada milli ruhda, adət-ənənələrimizə, milli-mənəvi dəyərlərimizə sədaqətlə xidmət edən kadrların hazırlanması ulu öndərin uzaqgörənliyinin, dərin zəkasının, dövlət idarəçiliyi sahəsində zəngin biliyi və təcrübəsinin nəticəsidir. Ümummilli lider deyirdi: "İdarəçilik təcrübəsi olmayan adam dövlətə rəhbərlik edə bilməz". Ona görə də Dövlət İdarəçiliyi Akademiyasının yaradılmasını çox vacib və zəruri hesab edirdi. Yaradıcısı ulu öndər olan akademiya bu gün onun ümidlərini yüksək səviyyədə doğruldur.

Qüdrətli şəxsiyyət Heydər Əliyevin ölkəmiz və xalqımızın yolunda xidmətləri olduqca yüksəkdir. Ümummilli lider Böyük Yaradanın xalqımıza bəxş etdiyi əvəzolunmaz şəxsiyyət, Azərbaycanın xilaskarıdır. Müstəqil Azərbaycan məhvə doğru gedəndə, vətəndaş müharibəsi reallaşmaq üzrə olanda, ölkədə böhran və iqtisadi tənəzzülün tüğyan etdiyi, hakimiyyətsizliyin baş alıb getdiyi bir dövrdə xalqın təkidli müraciətlərinə cavab olaraq "Həyatımın qalan hissəsini də xalqıma bağışlayıram" – dedi. Bununla da Azərbaycanı dəhşətli bəlalardan qurtardı, parçalanmaq, yer üzündən silinmək təhlükəsindən xilas etdi.

Heydər Əliyev Azərbaycanın şərəfli tarixində əbədi yaşayacaq. Onun bütün fəaliyyəti xalqımızın həyat səviyyəsinin yüksəlməsinə, müstəqil Azərbaycanı dünyanın inkişaf etmiş ölkələri sırasına qoşmağa köklənmişdi. Ulu öndərin yarımçıq qalmış ideyalarının layiqincə reallaşdırılması ölkəmizi daha yüksək zirvələrə qaldırıb. Sevinirik, fəxr edirik və qürur hissi keçiririk ki, bu gün dövlət idarəçiliyi müdrik siyasi xadimin ən layiqli yetirməsi möhtərəm Prezidentimiz İlham Əliyevə etibar edilib. Xalq bu etibarı, inamı yekdilliklə

dəstəkləyir. Bu gün Azərbaycan 10 il əvvəlki Azərbaycan deyil. Artıq müstəqil dövlətimiz beynəlxalq aləmdə söz, nüfuz sahibidir.

Möhtərəm Prezidentimizin Azərbaycanın milli maraqlarını hər şeydən üstün tutması, dövlətimizin mənafelərinə zidd siyasətin həyata keçirilməsinə imkan verməməsi bir daha təsdiqləyir ki, Azərbaycan dövləti, onun başçısı öz iradəsini reallaşdırmaq üçün yüksək siyasi potensiala malikdir. Biz ötən il dünyanı qlobal maliyyə və iqtisadi böhran bürüyən zaman da bunun şahidi olduq. İnkişaf etmiş dövlətlərin iqtisadiyyatına güclü zərbə dəysə də, əksinə Azərbaycan öz inkişaf tempini qoruyub saxladı. İndiki mürəkkəb bir şəraitdə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində, habelə Türkiyə-Ermənistan sərhədlərinin açılması ilə əlaqədar qardaş Türkiyəyə güclü təzyiqlər edilən zaman da möhtərəm Prezidentimiz əsl siyasi liderə xas olan yüksək siyasi iradə, uzaqgörənlik nümayiş etdirdi. Bunun nəticəsi olaraq, hazırda Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında proseslər bizim xeyrimizədir.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın xalqımızın rifahı, respublikamızın inkişafı və dövlətçiliyimizin daha da möhkəmləndirilməsi yolunda möhtərəm Prezidentimizlə birgə fəaliyyəti ölkəmizin beynəlxalq aləmdəki nüfuzunu daha da artırıb.

Bu gün Azərbaycan nüfuzlu, mötəbər beynəlxalq tədbirlərin keçirilməsi üçün inamlı, etibarlı bir dövlətə çevrilib. Artıq bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. İnanırıq ki, bu yüksəliş bundan sonra da davam etdiriləcək, ölkəmizin qarşılaşdığı münaqişələr bizim istədiyimiz səviyyədə həll olunacaq və Azərbaycan dünyanın inkişaf etmiş dövlətlərindən birinə çevriləcək.

“**Xalq qəzeti**“.-2010.-9 may.-N 100.-S.7.

# HEYDƏR ƏLİYEV VƏ MİLLİ DÖVLƏTÇİLİK TƏLİMİ – AZƏRBAYCANÇILIQ

**Əli HƏSƏNOV,**
tarix elmləri doktoru, professor

**“Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam !”**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

Dünyada təxminən irili-xırdalı 5000-dən artıq xalq mövcud olsa da, BMT iqamətgahında bayrağı dalğalanan müstəqil dövlətlərin sayı bu gün 200-dən bir qədər çoxdur. Azərbaycanın da bu sırada öz yerini tutması xalqımızın böyük tarixi nailiyyəti kimi qiymətləndirilməlidir.

Hər bir xalqın müstəqil dövlət quruculuğu yolu bir sıra mühüm daxili və xarici amillərlə şərtlənir. Azərbaycan xalqı əlverişli tarixi şəraitdən və özünün siyasi, iqtisadi, mədəni və intellektual potensialından istifadə edərək XX əsrin sonunda öz istiqlal arzusunu gerçəkləşdirmişdir. Müstəqillik dövrünün qısa tarixi ümummilli lider Heydər Əliyevin belə bir fikrini təsdiq edir ki, “müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir.”

Azərbaycanın müstəqil dövlətçilik tarixinin təhlili göstərir ki, dövlət qurmaq kimi çətin, mürəkkəb və şərəfli missiyaya iradəli, geniş və qlobal dünyagörüşlü, xalqın dəstəyinə malik və onun milli liderinə çevrilmiş şəxs rəhbərlik edə bilərdi. XX əsrin 90-cı illərinin sonunda Azərbaycanda belə rola iddia edə bilən və bu işlərin öhdəsindən gəlmək iqtidarında olan yeganə lider Heydər Əliyev idi.

Heydər Əliyevin əməli və nəzəri fəaliyyətinin mühüm bir hissəsini onun milli dövlətçilik təlimi, milli-mənəvi və ideya-siyasi dünyagörüşü təşkil edir. Onun bu sahə üzrə toplanmış zəngin irsinin tədqiqi təkcə bugünkü ictimai-siyasi dairələr üçün deyil, həm də gələcək nəsillər, Azərbaycana rəhbərlik edəcək bütün liderlər üçün örnək rolunu oynamağa layiqdir. Müasir Azərbaycanın möhkəm özülünü qoymuş bu tarixi şəxsiyyətin ideya dünyası onun davamçılarının yoluna həmişə işıq salacaq.

Heydər Əliyevin ideya və fikirləri, həyata keçirdiyi siyasət Azərbaycan şəraitində sosialist ictimai-iqtisadi sistemindən yeni cəmiyyətə keçidin elmi-nəzəri əsaslarını yaratmışdır. İmperiya və sosialist sistemindən azad olaraq müstəqillik yolu tutmuş, lakin region və dünya güclərinin üst-üstə düşməyən, kəsişən maraqları ilə üz-üzə qalmış, qloballaşan dünyada öz yerini axtaran, maraqlarını qorumağa çalışan gənc Azərbaycan üçün Heydər Əliyevin dövlətçilik təlimi əsl fəaliyyət strategiyası idi. Uzun illər öz dövlətçiliyindən və milli-mənəvi köklərindən ayrı salınmış, milli və dövlətçilik maraqları tapdanmış Azərbaycan xalqının özünə qayıdış və özünütəsdiqində Heydər Əliyevin əməli fəaliyyəti və ideya-siyasi baxışlarının çox böyük rolu olmuşdur.

Heydər Əliyev 1993-cü ildə yenidən Azərbaycanın rəhbərliyinə gələndə bitkin dövlət konsepsiyasına malik idi. Bu konsepsiyanın bəzi tezisləri onun 1992-ci ildə Azərbaycan ziyalılarına ünvanlanmış müraciətində və Yeni Azərbaycan Partiyasının proqramında öz əksini tapmışdır. Bu müraciətdə tezislər şəklində həmin dövrün ictimai-siyasi vəziyyəti, müstəqil dövlət quruculuğunun şərtləri, regionumuzda və beynəlxalq aləmdə baş verən hadisələr və cərəyan edən proseslərin xarakteri, Azərbaycanın daxili vəziyyəti, başlanmış iqtisadi, siyasi və milli böhran və ondan çıxış yolları və s. taleyüklü məsələlər özünün əsl elmi-nəzəri cavabını tapmışdır.

Heydər Əliyevin dövlət təlimində güclü dövlət anlayışı və özünün bütün atributları ilə birgə onun iqtisadi, siyasi, sosial və mənəvi əsasları öz əksini tapmışdır. Heydər Əliyevin düşündüyü güclü dövlət təkmil mərkəzi və yerli idarəetmə mexanizmi, ictimai-siyasi həyatı sabit, işlək qanunları, ədalətli cəmiyyəti olan, insanları dəyərləndirilən və qabiliyyətinə görə proseslərə cəlb edilən, milli birliyə malik bir sistem tələb edirdi.

Heydər Əliyev hər bir dövlətin varlığının əsasını təşkil edən iqtisadi inkişafı dövlət həyatının ən vacib vəzifəsi hesab edirdi. O öyrədirdi ki, dövlət qurarkən cəmiyyətin yaşam tərzini, ictimai həyat normalarını, idarəçiliyi, qanunçuluğu, sabitliyi, vətəndaş birliyini, milli həmrəyliyi, beynəlxalq təhlükəsizliyi və s. vəzifələri o zaman dolğun və davamlı təmin etmək olar ki, dövlətin iqtisadiyyatı normal vəziyyətdə olsun və qarşıya qoyulmuş vəzifələrə cavab versin.

Heydər Əliyev hər bir Azərbaycan vətəndaşını milli əxlaqa və güclü iradəyə malik, qlobal və azad düşüncəli, təşəbbüskar, fəal, ölkədaxili və beynəlxalq proseslərdən baş çıxara bilən, təhsilli, ədalətli, vətəni və xalqı üçün gərəkli insan kimi görmək istəyirdi.

Heydər Əliyev nəinki müstəqil Azərbaycan dövlətinin yaradılması konsepsiyasını həyata keçirdi, eyni zamanda Azərbaycan vətəndaşlarını birləşdirən, xalqımızı beynəlxalq aləmdə vahid amal, əqidə, məqsəd və məram ətrafında səfərbər edən milli təlim – azərbaycançılıq ideologiyasını da yaratdı.

1993-cü ildə Heydər Əliyev hakimiyyətə gələndə Azərbaycanda keçmiş kommunist ideologiyasından imtina edilmişdi. Lakin xalqı səfərbər edən, onun kimliyini, yaratdığı dövlətin xarakterini, milli-mənəvi dəyərlərini qoruyub saxlayacaq və yönəldəcək milli sistem və ideya da ortaya qoyulmamışdı. Keçmişin bütün varlıqlarından, o cümlədən elmi, intellektual, mənəvi, ictimai dəyərlərindən total imtina meyli Azərbaycanda sözün həqiqi mənasında ciddi ideoloji boşluq yaratmışdı. Əlbəttə, cəmiyyətin ideyasızlaşdırılması meyli bir tərəfdən keçmiş kommunist rejiminə nifrətdən qaynaqlanırdısa, digər tərəfdən 1991-1993-cü illərdə Azərbaycanı idarə edənlərin aydın məqsəd və məramının yoxluğundan, idarə etdikləri dövlətin siyasi, iqtisadi, mədəni, mənəvi inkişafı haqqında dolğun təsəvvürə malik olmamamasından irəli gəlirdi.

Heydər Əliyevin dövründə Azərbaycan vətəndaşlarını vahid amal, ideya və məqsəd ətrafında birləşdirəcək milli ideologiyanın yaradılması dövlət siyasəti səviyyəsinə qaldırıldı. Bir faktı xüsusi vurğulamalıyıq ki, başqa sahələrdə olduğu kimi milli ideoloji baxışlar sisteminin formalaşmasında da Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin varislik prinsipini saxladı və vaxtilə məhz onların birləşdirici ideya kimi irəli sürdüyü azərbaycançılıq ideologiyasına müraciət etdi. Heydər Əliyev qeyd edirdi ki, milli ideologiya tarixi keçmişimizlə, millətimizin adət-ənənələri, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır.

Məlum olduğu kimi, azərbaycançılıq ideyasının tarixi son iki əsri əhatə edir. XIX əsrin milli maarifçi hərəkat nümayəndələrinə qədər azərbaycançılıq əsasən vətənçilik, vətənsevərlik mənasında işlədilirdi və onun milli səfərbəredici təsiri çox aşağı idi. Lakin XIX əsrin maarifçilik hərəkatı nümayəndələri, xüsusən M. F. Axundov, A. Bakıxanov, H. B. Zərdabi, N. B. Vəzirov, C. Məmmədquluzadə, Ö.F. Nemanzadə, N. Nərimanov və başqaları azərbaycançılığı xalqımıza qarşı həyata keçirilən işğalçılığa, milli məhrumiyyətlərə müqavimət reaksiyası, tarixi yaddaşın qorunması, ana dilinin, milli adət-ənənələrin, mənəviyyatın yaşadılması, inkişafı, milli şüurun oyanışı və s. vasitəsi kimi təbliğ edirdilər.

Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları – Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Məmməd Əmin Rəsulzadə və başqaları ilk dəfə azərbaycançılıq ideyasını bir az başqa məzmunda dövlət siyasəti səviyyəsinə qaldırmağa cəhd göstərmiş və Xalq Cümhuriyyətinin fəaliyyətini bu ideya istiqamətində qurmağa çalışmışlar. Lakin Xalq Cümhuriyyətinin süqutu ilə azərbaycançılıq ideyası da sıxışdırılaraq kommunist ideologiyasının kölgəsinə salınmışdır.

Sovet dövründə azərbaycançılıq ideyası yalnız bədii əsərlərdə, adət-ənənələrdə yaşamış və təbii ki, dövlət ideologiyasına çevrilə bilməmişdir.

Lakin bir faktı xüsusi vurğulamalıyıq ki, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə – 60-80-ci illərdə azərbaycançılığın inkişafı üçün əlverişli ictimai-siyasi, elmi-mənəvi şərait yaradılmışdır. Bu şəraitdən o dövrdə tarixçilər, ədəbiyyatçılar, dilçilər, filosoflar və başqa intellekt sahibləri geniş bəhrələnərək çoxsaylı əsərlər yaratmışlar. Bu illərdə yazılmış əsərlərdə azərbaycançılığın mühüm sahələri olan milli dilin, milli şüurun, adət-ənənələrin inkişafı və dünyada təbliğ edilməsi, gənc nəslin azərbaycançılıq ruhunda tərbiyə edilməsi sahəsində böyük irəliləyiş müşahidə olunmuşdur.

Azərbaycançılıq ideyasının formalaşmasında 90-cı illərdə, dövlət müstəqilliyinin bərpası ərəfəsində başlanmış əvvəlcə xalq, sonra isə milli azadlıq hərəkatının əhəmiyyətli rolu olmuşdur. Bu dövrdə azərbaycançılıqla bağlı müxtəlif əsərlərin yenidən çap olunması və yayılması, yeni məqalə və s. əsərlərin yazılması, milli şüurun, ruhun yüksəlişinə xidmət edən xalq hərəkatının vüsət alması insanların kütləvi düşüncə tərzinə öz müsbət təsirini göstərdi. Lakin təəssüf hissi ilə qeyd edilməlidir ki, o illərdə Azərbaycanı yönəldən qüvvələr, xüsusən AXC-Müsavat dairələri respublikanın milli-etnik xüsusiyyətlərini nəzərə almadan, meydan əhval-ruhiyyəsi altında azərbaycançılığın təbliğində kobud səhvlərə yol verdilər. Onlar azərbaycançılığı ümumtürklük ideyası ilə eyniləşdirərək ölkədaxili etnik və milli etimadsızlıq toxumu səpdilər ki, bu da azərbaycançılıq ideyasını müəyyən müddət ciddi iflasa uğratdı.

1993-cü ildən Heydər Əliyevin siyasi rəhbərliyə gəlişi ilə bütün Azərbaycan vətəndaşlarının, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, ölkənin istiqlaliyyətini dəstəkləyən insanların vahid dövlətçilik ətrafında birləşdirilməsi üçün ciddi iş aparıldı. Cəmiyyətdə hakim olan istiqlal arzusu, azərbaycançılığın müstəqil dövlətin bütün əhalisinin ali ideologiyasına çevrilməsi, ümummilli birliyin təmin olunması zərurəti tezliklə ictimai-siyasi və mənəvi dairələrin gündəliyinə çıxarıldı.

Heydər Əliyev azərbaycançılıq ideyasına tamamilə yeni bir məzmun verərək onu Azərbaycanın milli-etnik xüsusiyyətlərinə, müasir dövrün tələblərinə və dünyanın müasir şəraitinə uyğunlaşdırdı. Odur ki, Heydər Əliyevi müasir azərbaycançılıq ideologiyasının- dövrün, zamanın tələblərini, dövlətçiliyin əsaslarını, milli-etnik şəraiti nəzərə alan milli təlimin banisi hesab etmək olar. Azərbaycançılıq ideologiyası məhz Heydər Əliyevin dövründə mükəmməl bir ideoloji təlim kimi ölkənin dövlət siyasətinə çevrildi.

Heydər Əliyev azərbaycançılığı bütöv bir xalqın – bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycanla bağlılığı olan bütün soydaşlarımızın və həmvətənlərimizin söykəndiyi milli birlik platformasına

çevirdi. Əgər Heydər Əliyevə qədər bu ideya əsasən etnolinqvistik, etnoqrafik, ədəbi, mədəni-estetik, fəlsəfi və mənəvi dəyər kimi mövcud idisə, onun dövründə ciddi sosial-siyasi məzmun kəsb edərək ümumi ideyalar sisteminə-dövlət quruculuğunun ayrılmaz tərkib hissəsinə çevrildi.

Azərbaycan dilinin rəsmi dövlət statusu alması və latın qrafikasının tətbiqi, Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunması və inkişafı, azərbaycançılıq ideyalarının, milli dəyərlərin bütün dünyada yaşayan həmvətənlərimiz arasında geniş yayılması, hər il 31 dekabrın Dünya Azərbaycanlılarının Birlik və Həmrəylik Günü kimi qeyd edilməsi və bu münasibətlə bütün xarici ölkələrdə yaşayan soydaşlarımızın iştirakı ilə təşkil edilən toplantılar, xarici səfərlər zamanı Heydər Əliyevin onlarla keçirdiyi görüşlər və s. 1993-cü ildən başlayaraq azərbaycançılıq ideologiyasının dövlət səviyyəsində həyata keçirilməsinin tam olmayan nümunələri idi.

2001-ci ildə Bakıda tarixdə ilk dəfə Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi və minlərlə soydaşımızın iştirakı ilə azərbaycançılığın əsaslarının müzakirə edilməsi, mövcud vəziyyətin qiymətləndirilməsi və gələcək vəzifələrin müəyyən olunması azərbaycançılıq ideologiyasının tarixində yeni bir mərhələ kimi dəyərləndirilə bilər.

Azərbaycançılıq ideyasını Heydər Əliyev həm də ölkədaxili ictimai-siyasi qüvvələrin, sosial, milli və dini qrupların birləşdirici amili kimi dəyərləndirirdi. O qeyd edirdi ki, hakimiyyətə, iqtidarlara və onların fəaliyyətinə müxalifətdə durmaq olar. Lakin dövlətə, dövlətçiliyə, milli birliyə, Vətənin, xalqın ümumi marağını ehtiva edən azərbaycançılıq ideyasına, milli-mənəvi dəyərlərə, milli məsləkə, milli dilə, milli varlığa heç zaman müxalifətdə durmaq olmaz.

Heydər Əliyevin bəhs etdiyi azərbaycançılıq ideologiyası və onun məzmununa daxil edilmiş əsas prinsiplər həm də 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Bu ideologiya artıq hansısa siyasi liderin, partiyanın, yaxud siyasi təşkilatın deyil, bütün xalqın ümumi marağının ifadəsinə çevrilmişdir. Belə olan halda bu ideologiyaya müxalifətdə durmaq ümumxalq maraqlarına, ümumxalq fikrinə və mövqeyinə müxalifətdə durmaq kimi dəyərləndirilməlidir. Azərbaycançılıq ideologiyası bu anlamda xalqın istək və arzusu ilə, onun iradəsinin nəticəsi kimi qurulmuş dövlətin, bu dövlətin müəyyən olunmuş daxili və xarici siyasət strategiyasının, daimi yaşam və fəaliyyətinin əsasını, başlıca prinsiplərini təşkil edir. Deməli, onun həyata keçirilməsi və qorunması Azərbaycanda yaşayan, fəaliyyət göstərən, bu dövlətin idarəçiliyinə iddia edən hər bir vətəndaş və təşkilat üçün əsas olmalıdır. Əgər hər hansı şəxs və yaxud təşkilat yaşadığı cəmiyyəti, təmsil etdiyi dövləti, konstitusiya ilə müəyyənləşdirilmiş ölkədaxili münasibətlər və dəyərlər sistemini qəbul edirsə, deməli dövlətin bu sistemin qarantı olmasını da mütləq qəbul etməlidir.

Heydər Əliyev azərbaycançılıq ideologiyasını müəyyən edərkən həm də beynəlxalq aləmdə cərəyan edən hadisələri, müasir dünya siyasətinin, qloballaşan və transmilliləşən dünyanın inkişaf tendensiyalarını nəzərə alırdı. Əlbəttə, qloballaşan dünyada ölkələrin milli sədlərini, milli-mənəvi dəyərlərini, vətəndaşların milli maraqlarını qorumaq o qədər də asan olmur. Transmilli şirkətlər və onların arxasında duran fövqəldövlətlər ölkələrin milli inkişafı, milli maraqları, milli-mənəvi dəyərlərin qorunması və s. proseslərini çox qısqanclıqla qarşılayırlar. Heydər Əliyev bütün bu reallığı nəzərə alaraq, bir tərəfdən azərbaycançılıq ideologiyasını ümumbəşəri dəyərlər fonunda formalaşdırır, digər tərəfdən dövlət quruculuğu proseslərində xarici təsirləri milli ideologiya süzgəcindən keçirirdi.

Heydər Əliyevin azərbaycançılıq ideologiyası milli-mənəvi dəyərləri, tarixi keçmişimizdən bizə irs qalmış milli varlığımızı və onu fərqləndirən bütün atributları qorumaqla, Azərbaycanı eyni zamanda müasir, inkişaf etmiş, xalqın maddi-mənəvi tələbatını təmin edə bilən, daxili həyatı sabit, milli-sosial birliyə qovuşmuş bir dövlət kimi görürdü.

Heydər Əliyev azərbaycançılıq ideologiyasının əsasına ilk növbədə dünyada yaşayan 40 milyondan çox azərbaycanlının maraqlarını təmin edə biləcək, bütün ölkə vətəndaşlarının sabit, firavan və dinamik inkişafına cavab verən milli dövləti – müstəqil Azərbaycan dövlətini qoyurdu.

Heydər Əliyev çıxışlarında bu məsələyə belə şərh verirdi: Müstəqil Azərbaycan dövləti bizim üçün ən qiymətli tarixi nailiyyətdir və onun qorunması, əbədiyaşar edilməsi hər bir azərbaycanlının müqəddəs borcudur. Milli ideologiyadan danışarkən biz ilk növbədə bütün xalqımızı, xüsusən gəncləri Azərbaycanın müstəqil dövlətçiliyi prinsiplərinə sadiq olmaq ruhunda tərbiyə etməliyik.

Heydər Əliyev Azərbaycan dövlətini azad, ədalətli, demokratik, siyasi plüralizmin hökm sürdüyü, vətəndaş cəmiyyətinə malik bir ölkə kimi görmək istəyirdi və daim buna çalışırdı. 1995-ci ildə çoxpartiyalı sistem əsasında ilk parlament seçkiləri keçirilməsi, ölkənin ilk Konstitusiyasının qəbul edilməsi, Avropanın demokratik institutları ilə Azərbaycanın əlaqələrinin gücləndirilməsi və Qərbə inteqrasiya xəttinin götürülməsi bu böyük liderin öz ölkəsinin gələcəyi ilə bağlı mövqeyinin göstəricisi idi. Azərbaycanda əsl çoxpartiyalı

sistem, azad, plüralist cəmiyyət, qeyri-hökumət strukturlarının, müstəqil mətbuatın yaradılması və inkişafı da Heydər Əliyevin bilavasitə səyi ilə həyata keçirilmişdir.

Heydər Əliyevin dövlət təlimi və milli ideyasında ikinci əsas yeri insan faktoru – millətini və xalqını sevən, dövlətinin yolunda hər bir şücaətə hazır olan, milli-mənəvi dəyərlərini yaşadan, ana dilini bilən və sevən, ədalətli və təşəbbüskar, fəal mövqeli və iradəli Azərbaycan vətəndaşı tuturdu. Ulu öndər öyrədirdi ki, hər hansı dövlətlərin gücü heç də onun böyüklüyü, yaxud kiçikliyi ilə ölçülmür. Əgər ölkənin vətəndaşı gördüyü işin onun özünə, ailəsinə və xalqına gətirəcəyi xeyri əvvəlcədən anlayır və ədalət prinsipi ilə öz zəhmətinin nəticəsini alırsa, həmin ölkə vətəndaşları daha ideyalı, əzmli və iradəli, belə ölkələr isə bir qayda olaraq güclü, qüdrətli və əzəmətli olurlar.

Heydər Əliyevin dövlət təlimində dinindən, dilindən, milli mənsubiyyətindən asılı olmayaraq bütün ölkə vətəndaşları qanun və ölkənin bütün maddi və mənəvi dəyərləri qarşısında bərabər idi. Təsadüfi deyil ki, 1993-cü ildə Heydər Əliyevin idarəçilik fəaliyyətinin mühüm bir sahəsini Azərbaycanda ədalətli vətəndaş cəmiyyətinin yaradılması, insan potensialının quruculuq işlərinə cəlb olunması, sosial ədalət prinsiplərinin bərqərar olması və insanların öz dövlətinə və dövlətçiliyinə inamının artırılmasına xidmət təşkil etmişdir. Heydər Əliyevin milli həmrəylik və vətəndaş birliyi ideyası, insan resurslarından düzgün istifadə edilməsi, hər bir vətəndaşın özünü dövlətinə və dövlətçiliyinə bağlı hesab etməsi, dövlətin hər bir insana, hər bir insanın isə öz dövlətçiliyinə xidmət etməsi amalı 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyada da öz əksini tapmışdır.

Azərbaycançılıq ideologiyasının mahiyyətini təşkil edən əsaslardan biri də Heydər Əliyev üçün milli-mənəvi dəyərlərin, ana dilinin və mədəniyyətin qorunub saxlanması və inkişaf etdirilməsi idi. Bununla bağlı ulu öndər qeyd edirdi ki, bizim milli ideologiyamızın konsepsiyası tarixi keçmişimizi, milli adət-ənənələrimizi, dilimizi, dinimizi və mədəniyyətimizi əks etdirməli, bu dəyərlərin qorunub saxlanılması və inkişaf etdirilməsinə xidmət etməlidir.

“Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!” Bu ifadələr ümummilli liderimizin milli-mənəvi dünyasını, vətəndaş aləmini və varlığını göstərən, öz milli köklərinə bağlılığını sübut edən tarixi bir bəyanat idi.

Heydər Əliyev azərbaycançılıq ideologiyasından danışarkən layiqli vətəndaş məsələsini də xüsusi fərqləndirirdi. O qeyd edirdi ki, biz elə bir nəsil yetişdirməliyik ki, o öz dövlətini sevsin, onu qorumağı, yaşatmağı və bütün dünyada tanıtmağı, ölkəsini layiqincə təmsil etməyi bacarsın. Bundan başqa, Heydər Əliyev gənc nəslin öz milli adət-ənənələrinə sadiqliyini, milli əxlaqlı olmasını, dilini, mədəniyyətini gözəl bilməsini və sevməsini həmişə tövsiyə edir, eyni zamanda onları təhsilli, müasir, Avropa dəyərlərini və dillərini bilən insanlar kimi görmək istəyirdi.

Heydər Əliyev Azərbaycan gənclərini sərbəst düşüncə tərzinə malik, cəmiyyətdə və dünyada gedən proseslərdən baş çıxara bilən, vətənpərvər, dövlətçilik təfəkkürü güclü olan savadlı, bacarıqlı, intellektli insanlar kimi görürdü.

Müasir Azərbaycanın mürəkkəb və taleyüklü tarixi dövründə dövlətə rəhbərliyin ağır məsuliyyətini öz üzərinə götürmüş Heydər Əliyevin müstəqil dövlət təlimi və onun ayrılmaz tərkib hissəsi olan azərbaycançılıq ideologiyasının həyata keçirilməsi müstəqil dövlətimizin bugünkü varlığının və gələcək inkişafının əsasını təşkil edir. Ulu öndərin siyasi xəttini davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin və xalqımızın firavan gələcəyinin təmin edilməsində Heydər Əliyevin müstəqil dövlət təliminin və azərbaycançılıq ideologiyasının alternativsiz bir yol olduğunu dəfələrlə bəyan etmişdir. Ölkə başçısı Azərbaycan xalqının zamanın sınaqlarına sinə gərərək, müasir dünya xalqları sırasında layiqli yer tutmasını öz dili və mədəniyyətini qoruması, milli-mənəvi dəyərlərinə arxalanması ilə sıx bağlı olduğunu qeyd edir. Buna görə də bu gün elm və mədəniyyətə, vətənpərvərlik tərbiyəsinə, xalqımızın tarixi irsinə yetirilən diqqət dövlət quruculuğu siyasətinin tərkib hissəsi olub Heydər Əliyevin dövlətçilik təliminin yaradıcı şəkildə inkişafının təzahürü kimi özünü göstərir.

“**Xalq qəzeti**“.-2010.-9 may.-N 100.-S.3-4.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA VAHİD ELM-TƏHSİL SİYASƏTİNİN TƏMƏLLƏRİ

**Səlahəddin XƏLİLOV,**
YAP Siyasi Şurasının üzvü,
Azərbaycan Universitetinin professoru

**Ölkəmizdə iqtisadi inkişaf sahəsində keçid dövrü başa çatdıqdan sonra gələcək inkişaf yolunun əsas hərəkətverici qüvvələri olmaqla elm və təhsil məsələləri Azərbaycan dövlətçiliyinin diqqət mərkəzindədir. Prezident İlham Əliyevin BDU-nun 90 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində qeyd etdiyi kimi, yeni mərhələdə elm və təhsilin prioritetliyi vacibdir: "Qabaqcıl ölkələrin təcrübəsinə nəzər salsaq, görərik ki, onların tərəqqisini elm müəyyən etmişdir. Nə təbii sərvətlər, nə də ki, coğrafi vəziyyət deyil, məhz intellektual kapital, məhz elmin səviyyəsi hər bir ölkəni lider ölkəyə çevirir".**

Azərbaycanın gələcək inkişafının elm və təhsillə bağlı olması strategiyasının təməlləri hələ o vaxt ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. O nəinki bu iki sahənin əhəmiyyətini xüsusi vurğulayırdı, həm də onların daxili əlaqəsini, bir-birini tamamlama şərtlərini də özünəməxsus bir fəhmlə hiss edirdi: "Elm, təhsil, mədəniyyət sahəsində əldə etdiyimiz nailiyyətlər, Azərbaycan xalqının bugünkü yüksək təhsil, elm, mədəniyyət səviyyəsi, şüur səviyyəsi – bunların hamısı ilk növbədə müəllimlərin xidmətlərinin nəticəsidir". Müəllimə olan xüsusi diqqət və sayğı da buradan irəli gəlirdi. Lakin yüksək səviyyəli müəllim kadrlarının yetişdirilməsi üçün də ilk öncə pedaqoji ali məktəblərdə tədrisin yüksək səviyyəsi və onu təmin etmək üçün yüksək elmi hazırlıq tələb olunur. Yəni təhsildən başlanan dövrə elm mərhələsini keçərək yenidən təhsildə qapanır.

Bu günün təhsili cəmiyyətin sabahına xidmət etdiyindən ictimai tərəqqinin proqnozu verilmədən, inkişaf strategiyası müəyyənləşdirilmədən, təhsil sahəsində heç bir islahat aparıla bilməz. Başqa sözlə, təhsil sistemində hər hansı bir islahat aparılması ancaq təhsilin öz daxili məntiqinə əsaslana bilməz və deməli, ancaq təhsil işçilərinin vəzifəsi ola bilməz.

Bütün ölkə, cəmiyyət miqyasında həyata keçirilən sosial-iqtisadi və ideya-siyasi islahatların elmi-nəzəri əsasları işlənib hazırlandıqca, təhsilin qarşısında duran əsas vəzifələr və onların yerinə yetirilməsinin yolları da getdikcə daha çox aydınlaşmış olur. Müstəqil Azərbaycanda dövlət quruculuğunu əzmlə həyata keçirməklə bərabər, onun ideya-nəzəri əsaslarını da, milli ideologiyamızın prinsiplərini də müəyyən edən Heydər Əliyev, heç şübhəsiz, təhsil sahəsinin qarşısında duran vəzifələrə də biganə qalmamışdır. Təhsil sisteminin təşkilati məsələlərini çox gözəl bilən, keçmiş SSRİ-də təhsil islahatına bilavasitə rəhbərlik etmiş olan Heydər Əliyev, digər tərəfdən, cəmiyyətə və dövlət quruculuğuna bir sistem halında yanaşarkən, burada təhsilin də yerini müəyyənləşdirməyi heç vaxt unutmurdu: "Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır".

Göründüyü kimi, Heydər Əliyev təhsilə son məqsəd kimi, nəticə kimi deyil, vasitə kimi baxırdı. Həyatda uğur qazanmağın vasitəsi kimi. Həyatın sahələri çoxdur. Onların hər hansı birində uğur qazanmaq üçün müvafiq yönümlü ixtisas biliklərinə yiyələnmək tələb olunur. Müxtəlif ixtisas sahələrində kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi nəticə etibarı ilə iqtisadiyyatın inkişafına və dövlətçiliyin möhkəmləndirilməsinə xidmət edir. Fərəhləndirici haldır ki, "xalqımızın elmi potensialı, təhsil potensialı bütün sahələrdə yüksək mütəxəssislərlə təmin olunmaq potensialı get-gedə artır. Bu da bizim müstəqillik dövründə əldə etdiyimiz əsas nailiyyətlərdən biridir" (Heydər Əliyev).

Müasir dövrdə ölkələrin inkişafı təkcə iqtisadi göstəricilərlə, təbii sərvətlərlə, əhalinin həyat səviyyəsi ilə deyil, həm də insanla cəmiyyət arasındakı münasibətin forması, cəmiyyətdəki demokratiklik və insanların azadlıq dərəcəsi ilə müəyyən olunur. Əgər iqtisadi dirçəliş, elmi-texniki tərəqqi daha çox rasional düşüncə, intellektual potensialla şərtlənirsə, insanın sosial və mənəvi yüksəlişi daha çox siyasi mədəniyyət və hüquqi təfəkkürlə şərtlənir. Bütün bunların inkişafı isə ilk növbədə təhsil sisteminin necə təşkil olunmasından asılıdır.

İnformasiyanın sürətlə artması, biliklərin həcminin insanın aktiv hafizəsi ilə müqayisədə hədsiz dərəcədə çox olması, cəmiyyətdə hadisələrin tempinin həddindən artıq böyüməsi, lakin insanın zaman koordinatının buna adaptasiya oluna bilməməsi qarşıya bir sıra problemlər qoyur. Bu problemlərin həlli insanın və cəmiyyətin inkişafı arasındakı fərqlə bağlıdır. Əsrlər boyu cəmiyyətin inkişafı ilə ayrıca götürülmüş bir insanın keçdiyi inkişaf arasında bir əlaqə və uyğunluq olmuşdur. Lakin müasir dövrdə cəmiyyət elə yüksək inkişaf tempi götürmüşdür ki, insan onu haqlamaqda çətinlik çəkir.

Ona görə də, müasir dövrdə qarşıda duran ən böyük problem insanın inkişaf tempini cəmiyyətin inkişaf tempinə uyğunlaşdırmaqdır. Bu funksiyanı təhsil sistemi yerinə yetirməlidir. Təhsil elə qurulmalıdır ki, ilkin

ümumi əsaslardan sonra dar ixtisaslaşma getsin. Çünki müasir informasiya bolluğu şəraitində insanın aktiv hafizəsi ancaq dar ixtisas sahəsini əhatə edə bilər.

Beləliklə, təhsil bir tərəfdən insanların ümumi rasional dilə malik olmasını, o biri tərəfdən də insanların müxtəlifləşməsini, fərqli peşə və sahələr üzrə ixtisaslaşmasını təmin etməlidir. Həm də bu proses elə həyata keçirilməlidir ki, müxtəlif qruplara ayrılmış insanların əldə etdikləri nailiyyətləri əlaqələndirmək və toplamaq mümkün olsun.

Bəli, müasir dövrdə dünyanın bütün qabaqcıl ölkələri təhsilin bu optimal modelinin axtarışındadır. Keçid dövründə olan Azərbaycanda da əvvəlki təhsil sistemi, heç şübhəsiz, özünü doğrulda bilməzdi. Yeni tələblərə, dövrün ab-havasına uyğun olan yeni təhsil sisteminə böyük ehtiyac var idi və ulu öndər bu sahədə böyük quruculuq işlərinin vacibliyini hiss edirdi. Lakin, əlbəttə, iqtisadiyyatı qaydaya salmadan elm və təhsil sahəsində fundamental islahatlar aparmaq hələ tez idi.

Sovet dövründə Azərbaycanda elmin və təhsilin inkişafında böyük xidmətləri olmuş Heydər Əliyev müstəqillik şəraitində açılan yeni imkanlardan istifadə etməklə əvvəl qazanılmış nailiyyətləri daha da möhkəmləndirmək və inkişaf etdirmək mövqeyindən çıxış edirdi: “İndi bizim təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir. Bu yolda keçiriləcək islahatlar gərək müstəqil Azərbaycanın milli mənafelərinin inkişafına yönəldilsin. Güman edirəm ki, bizim alimlər, müəllimlər təhsil sahəsində ixtisaslaşmış institutlar bu işlərin öhdəsindən gələcəklər”. Biz elm və təhsil işçiləri ulu öndərin bu tövsiyələrini unutmamışıq və bu sahədə müsbət istiqamətdə bir dönüş yaradılması uğrunda mübarizəni indi də davam etdiririk.

Müstəqil dövlət quruculuğu şəraitində həmçinin müstəqil təhsil siyasəti yeridilməsinə, sovet təhsil sisteminin stereotiplərindən uzaqlaşaraq ölkəmizin yeni miqyası, daxil olduğu yeni ictimai-iqtisadi münasibətlər, habelə milli və regional xüsusiyyətlər əsasında vahid elm və təhsil konsepsiyası hazırlanması zərurəti qaçılmazdır. Əlbəttə, ötən dövr ərzində Azərbaycan təhsil sisteminin Avropa təhsil məkanına qatılması istiqamətində mühüm işlər görülmüş, təhsil haqqında yeni qanun qəbul edilmişdir.

Yeni imkanlar şəraitində respublikamızın təhsil sistemində artıq müəyyən dəyişikliklər edilmiş, müasir tipli kolleclər, liseylər açılmış, ali məktəblərdə bir sıra yeni ixtisaslar üzrə kadr hazırlığına başlanmışdır. Ali təhsildə ikipilləli sistemə keçilmiş, qabaqcıl universitetlərdə magistraturalar açılmışdır. Bizcə, bu istiqamətdə tədbirlərin davam etdirilməsinə və bu işdə xarici ölkələrin təcrübəsindən geniş istifadə olunmasına böyük ehtiyac vardır.

Heydər Əliyev dünya praktikasını və yerli xüsusiyyətləri nəzərə almaq, bu sahədə hər hansı bir islahatı hərtərəfli və mütəşəkkil şəkildə həyata keçirmək zərurətini qeyd edərək deyirdi: “Biz təhsil sahəsində yeniliklərin tərəfdarıyıq, dünya təcrübəsindən səmərəli istifadə etməyinizi sizdən tələb edirik. Ancaq bu işlər gərək sistemli olsun. Bu işləri görərkən, qurarkən siz onların yaxın və uzaq zamanda nəticələrini mütləq nəzərə almalısınız. Müasir texnikanın, texnologiyanın, müasir bazar iqtisadiyyatının bütün yollarını mənimsəmək, respublikada tətbiq etmək üçün gələcək nəsli hazırlamaq və keçmiş dövrə nisbətən bir çox yeni ixtisaslar üzrə kadr hazırlamaq lazımdır və bunların əsası orta təhsil illərində qoyulmalıdır”.

Fərəhli haldır ki, Heydər Əliyevin ideyalarının həyata keçirilməsi sahəsində ən böyük işlər də məhz onun adını daşıyan fondun geniş və hərtərəfli fəaliyyəti ilə həyata keçirilir. Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkəmizdə yüzlərlə yeni məktəb binası tikilib istifadəyə verilmiş, təhsilin maddi-texniki bazasını yaxşılaşdırmaq üçün misilsiz işlər görülmüşdür. Müstəqilliyimiz möhkəmləndikcə təhsil sahəsində də daha inamlı addımlar üçün şans yaranır. Heydər Əliyev Azərbaycan müəllimlərinin qurultayında dövlətin təhsil sahəsinə münasibətini belə ifadə etmişdi: “Biz müstəqil dövlət olaraq özümüzün təhsil sistemimizi istədiyimiz kimi qururuq. Bütün dünya ölkələrinin mütərəqqi təcrübələrindən istifadə edirik. Hesab edirəm ki, indiyə qədər yaranmış təməlin, əsasın üzərində Azərbaycanın təhsili, məktəbi bundan sonra daha da təkmilləşəcək…”

Heydər Əliyev qazanılmış hər hansı bir nailiyyətlə kifayətlənmirdi. Xüsusən, elm və təhsil sahəsində görüləcək işlərin çoxunun hələ qabaqda olduğunu da tez-tez vurğulayırdı: “Bu gün biz müstəqil Azərbaycanda bütün təhsilin – orta, texniki peşə, orta ixtisas məktəblərinin və ali məktəblərin işinin yaxşılaşdırılması sahəsində ciddi tədbirlər görməliyik. Mən hesab edirəm ki, bunlar həm qəbul olunacaq təhsil qanununda, həm də təhsil islahatı ilə əlaqədar qəbul ediləcək qanunda və qərarlarda öz əksini tapacaqdır.”

Təhsilin məqsəd və vəzifələri təkcə sistemli biliklər öyrədilməsi ilə məhdudlaşmır. Uşaqların cəmiyyətin bir üzvü kimi hazırlanması ictimai biliklərin öyrədilməsi ilə yanaşı, fəal ictimai praktika da tələb edir. Məktəb təkcə uşağın başını biliklərlə doldurmaq üçün deyil, həm də onu həyata hazırlamaq üçündür. Orta məktəb uşağı ümumiyyətlə, həyata hazırlayır. Ali məktəb isə onu bir peşəkar kimi müəyyən sahənin mütəxəssisi olaraq yetişdirir. Bu axırıncı mərhələdə həyata hazırlanmaq gənclərin ali məktəbi bitirdikdən sonra çalışacaqları

istehsal və ya xidmət müəssisələrindəki real şəraitə və tələblərə uyğun surətdə əməli vərdişlərin mənimsənilməsini nəzərdə tutur. Digər tərəfdən, tələbələrin həm də bir vətəndaş kimi yetişməsi, onların siyasi və hüquqi mədəniyyətlərinin formalaşması üçün ali məktəb bu sahədə sadəcə biliklər verməklə kifayətlənməyərək, ictimai həyatın fəal iştirakçısı kimi fəaliyyət göstərməlidir.

İstər hər hansı bir ixtisas sahəsində, istərsə də ictimai həyatda fəallıq isə müvafiq elmi biliklərə əsaslanmalıdır. Heydər Əliyev deyirdi: "Gənclərimizi elmə, mədəniyyətə daha da çox cəlb etmək lazımdır. Gənclərimizdə elmi-tədqiqat işlərinə həvəs oyatmaq lazımdır. Azərbaycan elminin gələcəyi müasir gəncliyin elmi tədqiqat işinə necə cəlb olunmasından, onlar üçün müvafiq elmi mühit yaradılmasından asılıdır".

Üstün elmi tədqiqat istiqamətlərinin düzgün seçilməsi, tələbə, aspirant və gənc alimlərin intellektual potensialının ölkəmiz üçün gərəkli olan problemlərə yönəldilməsi elm təşkilatçılarının, elmi-tədqiqat institutları və ali məktəb rəhbərlərinin başlıca vəzifələrindən biridir.

Yaxın keçmişdə kommunist ideologiyası cəmiyyətşünaslıq sahəsindəki tədqiqatları məhdudulaşdırdığından, cəmiyyətin obyektiv tədqiqinə yol verilmədiyindən bütün intellektual potensial əsasən təbiət elmləri və riyaziyyata yönəldilirdi. Ona görə də cəmiyyətin, iqtisadiyyatın, təsərrüfatın elmi əsaslarla idarə olunması, menecmentin, tətbiqi sosiologiyanın bir elm kimi təşəkkül tapması ancaq kapitalist ölkələrinə xas bir hadisə idi. İndi ictimai elmlərin həqiqi bir elm kimi inkişafı üçün meydan açılmışdır. Həm də milli dövlət quruculuğu bu sahədəki tədqiqatların aktuallığını daha da artırır və intellektin daha çox bu sahəyə yönəldilməsini tələb edir. Təsadüfi deyil ki, Heydər Əliyev məhz humanitar elmlərə xüsusi diqqət verir və onların real ictimai həyatdakı rolunu yüksək qiymətləndirirdi: "Məlumdur ki, geniş kütlə, xalq, millət üçün ən çox təsirlisi humanitar elmlərdir".

Elm planetar, ümumbəşəri hadisədir. Vahid, böyük elm prosesinə daxil ola bilməyən, sanki ancaq özü üçün yaradılmış lokal elm strukturları əsl elm sayıla bilməz. Böyük elmə daxil olmağın öz şərtləri vardır. Bunlardan biri dünya miqyasında əldə olunmuş yeni elmi biliklərin və elmi axtarışların ön cəbhəsində olmaqdır. Cəbhə xəttindən geridə qalanlar müasir elmi prosesə qoşulmayaraq, yalnız artıq keçilmiş yolların künc-bucağında yer tuta bilərlər, lakin bu, elm hesab edilə bilməz.

Müəyyən bir xalq və ya ölkə üçün elm yalnız ayrı-ayrı adamların mənəvi tələbatı, intellektual əyləncəsi olmayıb sənayenin, təsərrüfatın, ümumiyyətlə, istənilən ictimai fəaliyyət sahəsinin inkişafına xidmət edən ideya-nəzəri təminat mənbəyidir. Elmi-tədqiqat sahələri ilə müxtəlif praktik fəaliyyət sahələri arasında isə bir körpü olaraq müvafiq texnika və texnologiya sahəsi dayanır. Bu, olduqca böyük, bütün ölkə miqyasında həyata keçən mürəkkəb ictimai prosesdir. Lakin hətta ən böyük ölkələr üçün də müstəqil elm məkanından danışmaq mümkün deyil. Hətta, keçmiş SSRİ kimi nəhəng ölkə də özünün tam müstəqil elmini yarada bilmədi. Ona görə də, hər bir ölkə öz elm strategiyasını imkanlarına uyğun olaraq qurmalıdır.

Azərbaycan öz miqyası ilə müqayisədə xeyli böyük elmi potensiala malikdir. Bu potensialın yaranmasında Elmlər Akademiyasının böyük rolu olmuşdur. Hazırda Azərbaycan elmin bir sıra sahələrində bütün dünya miqyasında qabaqcıl mövqe tutur. Bu uğurların səbəblərini araşdırmaq və onları möhkəmləndirmək lazımdır.

Milli Elmlər Akademiyasının statusunun daha da yüksəldilməsi, nüfuzunun artması, burada əsl elmi yaradıcılıq atmosferinin təmin edilməsi çox vacibdir. Bu gün ən vacib məsələlərdən biri akademiyaya seçkilərin müntəzəm və elmi meyarlar əsasında keçirilməsi, onun özəyini təşkil edən həqiqi və müxbir üzvlər sırasına nisbətən gənc, istedadlı alimlərin seçilməsi, akademiyanın ümumi yığıncağının və Rəyasət Heyətinin səlahiyyətlərinin artırılmasıdır. Bu gün cəmiyyətdə "akademik" imicinin bərpasına böyük ehtiyac vardır. Ümumiyyətlə, cəmiyyətdə nüfuzlu elm adamlarının, böyük intellekt sahiblərinin fikri nə qədər çox nəzərə alınsa, bir o qədər yaxşıdır.

Lakin elmin inkişafını yalnız Milli Elmlər Akademiyası ilə bağlamaq olmaz. Çünki bu inkişaf həm təhsil sistemi ilə, xüsusən də ali məktəb, magistratura və doktoranturadakı fəaliyyətlə, həm müasir texnologiyaya əsaslanan sənayenin inkişafı ilə, həm də digər fəaliyyət sahələrinin nəzəri səviyyədə dərk olunması təşəbbüsləri ilə sıx surətdə bağlıdır. Bu təşəbbüslər çox müxtəlif təşkilati formalarda həyata keçirilir. Keçmiş SSRİ-də elmin inkişafı ona görə əsasən Elmlər Akademiyası ilə bağlanırdı ki, onun yeganə fəaliyyət sahəsi elmi tədqiqat idi. Lakin qarışıq sahələrdə də elmin öz payı var. Heç də belə düşünmək olmaz ki, guya, MEA-dan başqa heç yerdə, o cümlədən universitetlərdə əsl elmi yaradıcılıq mühiti ola bilməz. Bu, çox səhv təsəvvürdür. Çünki elmi mühitsiz təhsil müəssisəsi universitet sayılmamalıdır. Universitetin başqa ali məktəblərdən əsas fərqlərindən biri də onun nəzdində elmi-tədqiqat institutlarının olması, burada geniş miqyaslı elmi yaradıcılıq fəaliyyətinin təşkilidir.

İndi biz müstəqil Azərbaycan Respublikasında elmin inkişaf perspektivlərini araşdırarkən köhnə təşkilati formalar, onların müsbət ənənələrinə hörmətlə yanaşmaqla bərabər, yeni, optimal və zamanın

tələblərinə daha çox cavab verən təşkilati formalara da biganə qalmamalıyıq. Qanunların məqsədi yaradıcılıq axtarışlarının, o cümlədən təşkilati forma axtarışlarının məhdudlaşdırılması deyil, əksinə, fayda verə biləcək istənilən yeni formaya hüquqi imkan verilməsi olmalıdır. Bu baxımdan, biz elm və təhsilin birgə inkişaf konsepsiyasını hazırlayarkən, ancaq ən ümumi prinsipləri ön plana çəkməyə və süni məhdudiyyətləri aradan götürməyə çalışmalı, bürokratik mexanizmləri sadələşdirməliyik.

Milli Elmlər Akademiyası, heç şübhəsiz, Azərbaycanda elmin inkişafı sahəsində misilsiz xidmətləri olan, böyük kadr potensialına malik nəhəng bir qurumdur. Ona görə də yarım əsr ərzində toplanılmış təcrübəni nəzərə almadan, yeni bir qurum yaratmaq sadəlövhlük olardı. Bu səbəbdən Azərbaycanda elmin inkişafı ilə bağlı islahatlar aparılarkən ilk növbədə Elmlər Akademiyasının təcrübəsi və potensialı nəzərə alınmalıdır. Elm və təhsilin əlaqələndirilməsi işində də bu çox vacibdir. Təsadüfi deyildir ki, bir çox mütəxəssislər magistraturanın akademiya ilə birlikdə, onun bazasından və elmi potensialından istifadə etməklə yaradılması məsələsi qaldırırlar. Bizim fikrimizcə, magistratura ali məktəblərin monopoliyasında qalmamalı və akademiya sistemində çalışan alimlər təhsil prosesindən kənarlaşdırılmamalıdırlar.

Lakin bununla yanaşı, öz elmi kadr potensialına görə bir sıra sahələrdə akademiyadan geri qalmayan universitetlərdə də elmin inkişafına şərait yaradılmalıdır. Bu, müxtəlif qurumların paralel tədqiqat aparması və bir-birini təkrar etməməsi üçün akademiya sistemində olan elmi-tədqiqat institutları ilə universitetlərin nəzdindəki elmi-tədqiqat mərkəzləri və kafedralar arasında sıx koordinasiya olmalıdır. Respublikamız o qədər böyük deyil ki, müəyyən bir elm sahəsində olan konkret elmi-tədqiqat mərkəzlərini müasir laboratoriyalarla təmin edə bilsin. Ona görə də mərkəzləşdirilmiş elmi idarəçilik prinsipi zamanın tələbidir. Lakin bu prinsipin hansı hallarda birləşmə şəklində, hansı hallarda əlaqələndirmə və birgə fəaliyyət şəklində həyata keçirilməsi konkret yanaşma tələb edir. Məhz buna görə də əvvəlcə Milli Elmlər Akademiyasının nisbi müstəqil bir qurum kimi fəaliyyətinin, eyni zamanda, universitet elminin nisbi müstəqil bir proses kimi təşkil olunmasının qanunda təsbit edilməsindən deyil, əlaqələndirilmiş vahid bir mexanizmin hüquqi əsaslarının hazırlanmasından çıxış edilməlidir.

Təsadüfi deyil ki, Heydər Əliyev BDU-nun yaradılması və inkişaf yolunu səciyyələndirərkən burada elm və təhsilin vəhdəti məsələsini xüsusi vurğulayırdı: "Universitet həm yüksək təhsil ocağı, həm də Azərbaycan elmini birləşdirən, onu inkişaf etdirən böyük bir müəssisə, böyük elm ocağı olubdur". Bəli, təkcə akademiya deyil, universitetlər də elm ocağı olmalıdır. Lakin bu gün biz buna necə nail ola bilərik? Mənə elə gəlir ki, bu məsələnin düzgün həlli üçün də Heydər Əliyev irsinin daha dərindən öyrənilməsinə böyük ehtiyac vardır.

İctimai-siyasi həyatın, iqtisadiyyatın, maddi və mənəvi mədəniyyətin bütün sahələrində böyük quruculuq işləri gedir. Bir tərəfdən, yeni ictimai-iqtisadi münasibətlərə keçid, digər tərəfdən, milli özünüdərk və özünütəsdiq istiqamətində gedən bu böyük proses elm və təhsil sahələrindən də yan keçməmişdir. Lakin bu proseslər fərəhli olmaqla bərabər, çətin proseslərdir. Çünki neçə onilliklər ərzində formalaşmış sistemlərin dağıdılıb yenidən qurulması bəzən böyük maddi itkilər və mənəvi-psixoloji sarsıntılarla müşayiət olunur. Bəzən də bu proseslər qeyri-peşəkar səviyyədə aparıldığından əlavə çətinliklər və itkilər yaradır. Xüsusilə müstəqilliyin ilk illərində, dövlətin sükanı naşı əllərdə olduğu vaxtlarda yeniləşmə, yenidənqurma prosesləri "hələ dağıdaq, sonra qurarıq" mövqeyindən həyata keçirilmiş, neçə onilliklər ərzində böyük zəhmətlər, səylər nəticəsində qazanılmış qabaqcıl mövqelər əldən verilmiş, yenidən, sıfırdan başlamaq xətti əsas götürülmüşdür.

Özünün məhz quruculuq, yaradıcılıq ənənələri ilə Azərbaycan xalqının qəlbində dərin iz buraxmış Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın sosializm dövründən qalmış iqtisadi və mədəni-mənəvi sərvətlərinin dağıdılması proseslərinə son qoydu və yeni quruculuq işləri varislik prinsipi əsasında, əvvəlki mərhələlərdə xalqımızın əldə etdiyi nailiyyətlərin davamı kimi həyata keçirilməyə başlandı.

Ötən əsrin 90-cı illərinin əvvəllərində ən böyük milli sərvətlərimizdən biri olan Elmlər Akademiyasının taleyi də sual altına alınmışdı və məhz Heydər Əliyevin hakimiyyətə gəlişi ilə bu tərəddüdlərə və narahatçılıqlara son qoyuldu və bu barədə Prezidentin qəti fikri bəyan edildi: "Akademiyanın indiyə qədər topladığı təcrübə bizim üçün əzizdir, onu qorumalı, saxlamalıyıq".

Elm sahəsində quruculuq işləri, bu sahədə çalışan adamların əməyinin müasir tələblər səviyyəsində qiymətləndirilməsi, akademiya üzvlərinin orta yaş həddinin aşağı salınması və s. bu kimi yeniliklər AMEA-da geniş islahatlar aparılması üçün şərtdir. Və bu gün biz qətiyyətlə deyə bilərik ki, yaxın vaxtlarda akademiyada ciddi quruculuq işləri həyata keçiriləcək və elmin müasir tələblərə uyğun surətdə təşkilatlanması ilə bağlı ciddi tədbirlər görüləcəkdir.

Milli Elmlər Akademiyasının taleyi ilə bağlı son vaxtlar yayılmış bəzi şayiələri qəti şəkildə təkzib edərək yada salmaq istəyirik ki, AMEA həmişə bilavasitə Heydər Əliyevin himayəsi altında olmuşdur və bu xətt indi Prezident İlham Əliyevin də diqqət mərkəzindədir. Xüsusən, onun dağıdılmasına yönəldilmiş heç bir addım

atıla bilməz. Heydər Əliyev ona məxsus uzaqgörənliklə bu sahədə ortaya çıxa biləcək belə söz-söhbətlərin qarşısını almaq üçün bu məsələ ilə bağlı qəti mövqeyini də qabaqcadan bildirmişdi: "Heç vaxt imkan vermək olmaz ki, kimsə, o cümlədən, prezident öz əhval-ruhiyyəsi ilə bunu dağıtsın. Ola bilər, başqa prezident bunu etsin, amma mən heç vaxt edə bilmərəm". "Müqəddəs elm ocağı"! Bu sözlər də Heydər Əliyevə məxsusdur və Elmlər Akademiyası haqqında deyilmişdir.

İndiki dövrdə də Azərbaycanda elmin və Milli Elmlər Akademiyasının taleyi ilə bağlı bədbin əhval-ruhiyyə üçün heç bir əsas yoxdur. Lakin bu o demək deyildir ki, hər şey elə əvvəlki kimi qalmalıdır. Biz bu sahədəki sərvətlərimizi qoruyub saxlamaqla yanaşı, onları inkişaf etdirmək barədə də düşünməliyik. Bu baxımdan, Azərbaycanda elmin təşkilati strukturunun təkmilləşdirilməsi, müxtəlif tabelikli elm-təhsil, elmi-tədqiqat müəssisələrinin və sahə elmlərinin əlaqələrinin optimallaşdırılması ilə bağlı ciddi tədbirlər görülməsinə böyük ehtiyac vardır.

Keçid dövründə, elmin ictimai şüurda pozitiv bir hadisə kimi hələ də saxlandığı, lakin ictimai-iqtisadi bir hadisə kimi öz yerini tapa bilmədiyi bir şəraitdə elmin imitasiyasına ehtiyac yaranır. Bəziləri köhnə elmin təşkilati formalarını, bəziləri hətta, bu təşkilatların yerləşdiyi binaları və öz əvvəlki funksiyalarını artıq çoxdan itirmiş laboratoriyaları, bəziləri üstündə monoqrafiya və ya elmi məcmuə yazılmış kitabları, bəziləri elmi titul və adları, bəziləri elmi idarələrdə çalışan və orada rəsmi maaş alan adamları elmin özü ilə qarışıq salırlar.

Ayrıca götürülmüş bir şəxs üçün fərdi miqyasda elmlə məşğul olmaq, ola bilsin ki, ancaq bir düşüncə prosesidir. Baxmayaraq ki, bu düşüncənin məhsulu müəyyən vasitələrlə elmi ictimaiyyətə çatdırılmayınca o, ən böyük yenilik də olsa, hələ elmə aid olmayacaqdır. Yəni hətta fərd üçün də elm fərdi miqyas daşıya bilməz. O ki qala, cəmiyyət üçün, xalq üçün. Müəyyən bir xalq və ya ölkə üçün elm ayrı-ayrı adamların mənəvi tələbatı, intellektual əyləncəsi olmayıb sənayenin, təsərrüfatın, ümumiyyətlə, istənilən ictimai fəaliyyət sahəsinin inkişafına xidmət edən ideya-nəzəri təminat mənbəyidir. Elmi-tədqiqat sahələri ilə müxtəlif ictimai fəaliyyət sahələri arasında isə bir körpü olaraq müvafiq texnika və texnologiya sahəsi dayanır. Bu olduqca böyük, bütün ölkə miqyasında həyata keçən mürəkkəb ictimai prosesdir. Heydər Əliyev deyirdi: "İndi dünya mədəniyyət dünyasıdır, intellektual dünyadır, elmi-texniki tərəqqi dünyasıdır".

Hər bir ölkədə tətbiqi elmlər bir qayda olaraq onun öz iqtisadiyyatının ehtiyaclarına uyğun istiqamətlərdə inkişaf etdirilir. Bu baxımdan, təbii ki, Azərbaycan inqtisadiyyatının da elm tutumlu sahələri müəyyənləşdirilməli və tədqiqatlar, əsasən, bu istiqamətlərə yönəldilməlidir. Lakin tətbiqi elmlərlə yanaşı, fundamental elmlər də vardır və onlar bir qayda olaraq bütün ölkələrdə deyil, yalnız ən qabaqcıl ölkələrdə inkişaf etdirilir. Azərbaycanda elmə, o cümlədən, fundamental elmlərə praqmatik münasibət hələ formalaşmadığından çoxları bu sahəyə, sadəcə, milli imici yüksəldən bir amil kimi baxır.

Həm fundamental, həm də tətbiqi elmlər iki müxtəlif parametrlə səciyyələnir. Sözün həqiqi mənasında, böyük elm – elmi yaradıcılığın ön cəbhəsi, bilavasitə yeni elmi biliklərin əldə edilməsi, elmi nəzəriyyələrin formalaşması prosesi vertikal ölçüdə, dərinlik göstəricisi ilə müəyyənləşir. Lakin elm piramidası həm də oturacaq müstəvisinin sahəsi ilə, artıq məlum elmi biliklərin və nəzəriyyələrin mənimsənilməsi və yayılma dərəcəsi ilə ölçülür.

Hər hansı bir ölkədə əhalinin maariflənməsi, savadlılıq dərəcəsi, klassik elmi biliklərin tədris proqramlarına daxil edilməsi və yayılması prosesi, daha geniş kütlələrin müxtəlif çeşidli elmi biliklərlə zənginləşməsi, elmi biliklərin əhali arasında paylanması və ya daha doğrusu, elmi biliklərin adi şüurun strukturuna daxil olması – bəli, bütün bunlar da göstəricidir. Lakin bunun böyük elmlə bilavasitə əlaqəsi yoxdur.

Müasir dövrdə Azərbaycanda elmi potensialdan səmərəli istifadə etmək və onu ictimai tərəqqinin mühüm hərəkətverici qüvvələrindən birinə çevirmək üçün qarşıda duran vəzifələrdən biri elmin təşkilati strukturunu yeni tələblərə uyğun surətdə optimallaşdırmaqdan ibarətdir. Əlbəttə, biz bütün dünya alimlərinin birgə səyi ilə yaradılan və inkişaf etdirilən və bütün sahələri əhatə edən böyük elmdən danışmırıq. Hər bir ölkə elmin inkişafı və istifadəsi prosesinə öz xüsusiyyətlərinə və imkanlarına uyğun olaraq qoşulur. Əsas məsələ məqsədin düzgün seçilməsidir. Elm bizə nədən ötrü lazımdır? Biz elmin hansı sahələrindəki nailiyyətləri öz ölkəmizdə tətbiq etmək imkanlarına malikik? Bizim sənayenin və kənd təsərrüfatının texnoloji inkişaf səviyyəsi və burada istifadə olunan qurğuların elmi tutum dərəcəsi öyrənilibmi? Yəni bir tərəfdən, bizim üçün hansı elm sahələrinin üstün əhəmiyyət kəsb etdiyi, digər tərəfdən, bizim texnologiyanın elmin hansı inkişaf səviyyəsinə adekvat olduğu nəzərə alınmalıdır.

Dünyada elmin təşkili praktikasında Elmlər Akademiyası, həqiqətən, ən diqqətəlayiq formalardan biridir. Elmi tədqiqatların mərkəzləşdirilmiş surətdə həyata keçirilməsinin böyük üstünlükləri vardır. Lakin nəzərə alınmalıdır ki, bu cür mərkəzləşmiş sistem daha çox dərəcədə sosializm cəmiyyəti üçün səciyyəvi idi. Bəli, sosializmin bu sahədə kapitalizm cəmiyyətinə nisbətən, həqiqətən, üstünlükləri var idi. Lakin iqtisadiyyat sahəsində dövlət monopoliyasından imtina edilməsi və bazar münasibətlərinə keçilməsi şəraitində elmin

mərkəzləşmiş qaydada fəaliyyəti bir sıra çətinliklərlə bağlıdır. Biz bu mahiyyət fərqini nəzərə almadan, guya, hər şeyi əvvəlki qaydada qala biləcəyi fikri ilə özümüzü aldada bilmərik. Burada əvvəlcə iki müxtəlif ictimai-iqtisadi sistemin üstün cəhətlərinin inteqrasiyası kimi çox mürəkkəb bir prosesin elmi-metodoloji əsasları işlənib hazırlanmalıdır.

Bəli, Elmlər Akademiyası saxlanmalıdır. Lakin hansı formada, hansı fəaliyyət istiqamətlərində və hansı infrastruktura daxil olmaqla? Bunlar irəlicədən müəyyənləşdirilməlidir. Bu gün akademiyanın keçmiş SSRİ Elmlər Akademiyasından qopub ayrılmış və təşkilati forması yeni miqyasın tələblərinə uyğun gəlməyən hazırkı vəziyyətini eynilə qoruyub saxlamaqdansa, onu daha mobil, daha çevik və daha məqsədyönlü bir quruma çevirmək tələb olunur. Əgər biz elmi potensialımızın bazasında, həqiqətən, rentabelli işlək bir elm modeli qura bilsək, dövlət də bu sahəyə ayrılan pulun hədər getməyəcəyinə – “fundamental elm – tətbiqi elm – texnoloji ideya – mühəndis-konstruktor layihəsi – istehsal” zəncirində hər bir halqaya ayrılan pulun hədər getməyəcəyinə, sonrakı halqaların hesabına əməli nəticəsi olacağına əmin ola bilər.

Hal-hazırda Azərbaycanda təkcə Elmlər Akademiyası ilə deyil, bütövlükdə, elmin inkişaf strategiyası ilə bağlı, elmin müasir tələblərə cavab verən təşkilati strukturunun formalaşdırılması ilə bağlı tədqiqatlara böyük ehtiyac vardır. Həm də bütün bu tədqiqatların əsasında məhz Heydər Əliyev ideyaları dayanmalıdır. Çünki onun uzaqgörən siyasəti və qeyri-adi intuisiyası bizim bugünkü və bütün gələcək uğurlarımızın da yoluna işıq saçır!

“**Xalq qəzeti**“.-2010.-12 may.-N 101.-S.8.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ƏDLİYYƏSİNİN İNKİŞAFI

**İlqar MƏMMƏDOV,**
Ədliyyə Nazirliyi Qeydiyyat və Notariat Baş İdarəsinin rəisi,
Kollegiya üzvü, III dərəcəli dövlət ədliyyə müşaviri.

**Müstəqil Azərbaycanın milli dövlətçiliyinin memarı, ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü xalqımız tərəfindən böyük hörmət və ehtiramla qeyd edilir. Bu günlər hər birimiz Heydər Əliyevin Vətən və millət qarşısında misilsiz xidmətlərini bir daha minnətdarlıq hissi ilə xatırlayırıq.**

**Dahi öndərin zəngin dövlətçilik təcrübəsi, siyasi irsi tariximizin ən mühüm və silinməz səhifələrini təşkil edir. Çünki xalqımız öz dövlətçiliyinin dünyəvi, demokratik, hüquqi əsaslar üzərində bərqərar olunmasına ulu öndər Heydər Əliyevin qətiyyəti nəticəsində nail olmuşdur. Dünya təcrübəsi göstərir ki, dövlətin davamlı inkişafı üçün möhkəm hüquqi bazanın yaradılması, ədliyyə və məhkəmə-hüquq sisteminin formalaşdırılması vacib şərtdir.**

**Ümummilli liderimiz müstəqil dövlətimizin hüquq sistemində ədliyyə orqanlarının mühüm rolunu dəfələrlə qeyd etmiş, onun mahiyyətcə təkmilləşdirilməsinə xidmət edən islahatlar həyata keçirmişdir.**

1918-ci ildə yaradılan Ədliyyə Nazirliyinə sovetlər dövründə biganə münasibət göstərilmiş, bu qurum məhdud səlahiyyətlər çərçivəsində fəaliyyət göstərmiş, dəfələrlə ləğv edilmişdir. Nazirliyin səmərəli dövlət strukturu kimi təşəkkül tapması Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin Azərbaycan rəhbərliyinə ilk gəlişi ilə ədliyyə sistemində də intibah başlanmış, Ədliyyə Nazirliyi 1970-ci ildə bərpa olunmuş, onun fəaliyyətini tənzimləyən mühüm normativ sənədlər qəbul edilmiş, milli kadr hazırlığına xüsusi diqqət yetirilmiş, bununla da ədliyyə işinin gələcək inkişafı üçün hərtərəfli zəmin yaranmışdır. Təsadüfi deyildir ki, nazirliyin yenidən təsis olunması ilə bağlı imzalanmış həmin qərarların surəti Ədliyyə Tarixi Muzeyində qiymətli eksponat kimi saxlanılır.

Azərbaycan ədliyyəsinin inkişafının əsaslı dönüş mərhələsi ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonrakı dövrə təsadüf edir. Davamlı ictimai-siyasi sabitlik bərqərar olunduqdan sonra ümummilli liderimizin müəllifi olduğu, demokratik dəyərlərə uyğun hazırlanmış yeni Konstitusiya 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Konstitusiyamızla Azərbaycanda demokratik quruluşun və hüquqi dövlətin möhkəm təməli qoyulmuş, hüquq islahatlarının aparılmasına başlanılmışdır.

Ulu öndər bununla əlaqədar yaradılan Hüquqi İslahat Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürərək qısa müddət ərzində hüquq sisteminin əsasını təşkil edən mühüm qanun və məcəllələrin qəbul edilməsinə nail olmuşdur. Nəticədə, 1993-2003-cü illərdə hüquqi dövlət quruculuğu prosesində yaxından iştirak edən ədliyyə orqanlarının inkişafına daim qayğılı münasibət göstərilmiş, Ədliyyə Nazirliyinin nüfuz dairəsi genişlənmiş, cəmiyyətdəki rolu və əhəmiyyəti artmış, ədliyyə orqanlarının fəaliyyətinin yeni qanunvericiliyin tələbləri səviyyəsində qurulması məqsədilə müvafiq struktur dəyişiklikləri aparılmış, yeni qurumlar yaradılmış, onların işinin təşkili üzrə zəruri tədbirlər görülmüşdür.

Məhkəmələrin müstəqilliyinin təmin olunması, fəaliyyətinə müdaxilələrin qarşısının alınması üçün nazirlikdə Məhkəmə Orqanları İdarəsi ləğv edilmiş, məhkəmə qərarlarının icra vəziyyətinin yaxşılaşdırılması məqsədilə məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidməti yaradılmışdır. Eyni zamanda, ədalət mühakiməsi əleyhinə olan bir sıra cinayətlər üzrə, o cümlədən məhkəmə qərarlarını icra etməmə cinayətləri üzrə işlərinin ibtidai istintaqının aparılması üçün istintaq idarəsi təsis edilmişdir.

Qanunun aliliyinin daha yüksək səviyyədə təmin edilməsi məqsədilə 2000-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda üçpilləli yeni məhkəmə sistemi yaradılaraq fəaliyyətə başlamış, ölkəmizdə ilk dəfə olaraq test üsulu ilə şəffaf prosedurlarla yeni hakim korpusu formalaşdırılaraq, onların yüksək statusu müəyyən olunmuşdur. Eyni zamanda, respublikada Konstitusiya Məhkəməsinin təsis edilməsi və fəaliyyətə başlaması da dahi öndər Heydər Əliyevin fəaliyyəti nəticəsində mümkün olmuşdur. Konstitusiyanın aliliyinin təmin edilməsi məqsədilə Konstitusiya Məhkəməsinə çox geniş səlahiyyətlər verilmiş və bu orqan hüquqi dövlətin və demokratiyanın inkişafında mühüm təsisat olmuşdur.

Heydər Əliyevin 18 iyun 1998-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" ölkəmizdə ilk dəfə olaraq insan hüquqları üzrə müvəkkil (Ombudsman) institutunun təsis edilməsini gündəmə gətirmişdir. Nəticədə, 28 dekabr 2001-ci il tarixdə "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu qəbul edilmişdir. Ombudsman aparatı fəaliyyətə başladıqdan sonra Ədliyyə Nazirliyi tərəfindən həmin qurumla əlaqələr qurularaq səmərəli əməkdaşlıq yaradılmış, bu sahədə çoxsaylı tədbirlər həyata keçirilmişdir.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən dövlətin cəza siyasətində də islahatlar həyata keçirilmiş, bir çox fərman və sərəncamlar imzalanmışdır. Dahi öndərin apardığı humanist siyasət nəticəsində Şərqdə ilk dəfə olaraq ölüm cəzası ləğv edilmiş, 1995-ci ildən əvvəl unudulmuş əfv və amnistiya təsisatları bərpa edilmiş, 1995-2003-cü illərdə 32 əfv fərmanı imzalanmışdır. Həmin dövrdə istintaq təcridxanaları da Ədliyyə Nazirliyinin tərkibinə verilmişdir.

Məhz Heydər Əliyevin təşəbbüsü ilə respublikamızın tarixində ilk dəfə olaraq 1999-cu ildə bələdiyyə seçkiləri keçirildi. Yerli özünüidarə orqanlarının fəaliyyətinin müasir tələblərə uyğun təşkil edil-məsinə köməklik göstərilməsi məqsədilə ümummilli liderimizin sərəncamı ilə Ədliyyə Nazirliyinin nəzdində Bələdiyyələrlə İş və Bələdiyyələrə Metodoloji Yardım Mərkəzi yaradılmış, bələdiyyələrə inzibati nəzarətin həyata keçirilməsi nazirliyə həvalə edilmişdir.

Heydər Əliyevin hakimiyyəti illərində vətəndaş cəmiyyəti quruculuğu sahəsində də mütərəqqi dövlət siyasəti formalaşmış, siyasi partiyaların və qeyri-kommersiya qurumlarının sərbəst və maneəsiz fəaliyyəti üçün əlverişli şərait yaradılmışdır. Müasir cəmiyyətin mühüm atributlarından biri olan qeyri-hökumət təşkilatlarının inkişafında, onların ictimai həyatda rolunun güclənməsində mühüm irəliləyişlər baş vermişdir. Qeyri-hökumət təşkilatları haqqında qanun qəbul edilmiş, qeydiyyatı Ədliyyə Nazirliyində həyata keçirilən qeyri-kommersiya hüquqi şəxsləri ilə sıx əməkdaşlıq yaradılmış, bu sahədə, eləcə də mətbu nəşrlərin uçotu ilə bağlı, nazirliyin üzərinə mühüm vəzifələr qoyulmuşdur. Demokratiyanın möhkəmləndirilməsi və inkişafında mühüm rol oynayan qeyri-kommersiya hüquqi şəxslərinin sayı ilbəil artmış, hazırda ölkədə 3400-ə yaxın qeyri-kommersiya təşkilatı, o cümlədən 54 siyasi partiya və 2537 qeyri-hökumət təşkilatı dövlət qeydiyyatına alınmış, 4200-dən artıq mətbu nəşrin uçotu həyata keçirilmişdir.

Notariat və qeydiyyat orqanlarının iqtisadi və hüquqi proseslərin tənzimlənməsində mühüm əhəmiyyəti nəzərə alınaraq bu orqanlarda da əsaslı islahatların həyata keçirilməsi üçün hüquqi baza yaradılmış, Ailə Məcəlləsi, “Notariat haqında” qanun və digər qanunvericilik aktları qəbul edilmişdir. Ulu öndər Heydər Əliyevin 6 mart 2000-ci il tarixli fərmanı ilə qeydiyyat orqanlarının idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı mühüm qərar qəbul olunmuş, bu orqanların ikili tabeçiliyinə son qoyularaq, onlar Ədliyyə Nazirliyinin strukturuna daxil edilmişlər.

Bütün sahələrdə əhalinin rifahını, ona göstərilən hüquqi xidmətin keyfiyyətinin yaxşılaşdırılması məsələlərini daim diqqət mərkəzində saxlayan, hər bir fərdin maraq və mənafelərinin təmin olunmasını önə çəkən ulu öndərin “Azərbaycan Respublikasında vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı işinin təkmilləşdirilməsi haqqında” 31 iyul 2002-ci il tarixli fərmanı ilə bu sahədə müəyyən səlahiyyətlər yerli icra hakimiyyətlərinə verilmiş, habelə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatının ədliyyə orqanlarının əməkdaşları tərəfindən səyyar qaydada aparılması müəyyən edilmiş, bununla da əhalinin öz hüquq və vəzifələrini həyata keçirməsi üçün əlverişli şərait yaradılmışdır.

Ədliyyə işçilərində mənəvi stimul yaradılması və tarixi irsin qorunması məqsədilə Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi gün – 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü kimi müəyyən olunmuşdur. Azərbaycan ədliyyə işçilərinin peşə bayramını təsis etməklə ümummilli liderimiz ədliyyə tarixinin səhifəsinə özünün daha bir şərəfli imzasını atmışdır. Bu yüksək etimad və diqqət hər bir ədliyyə işçisi tərəfindən dərin minnətdarlıq və iftixar hissi ilə qarşılanmışdır.

Ulu öndər Heydər Əliyevin ölkəyə rəhbərliyinin hər bir dövrü Azərbaycan ədliyyəsinin misilsiz inkişafı ilə də yadda qalmışdır.

Ümummilli liderimizin söylədiyi bütün fikirlər hər birimizin fəaliyyət prinsipinə çevrilmişdir. **Onun uzaqgörənliklə söylədiyi bu fikir isə ədliyyə işçilərinin üzərinə daha böyük məsuliyyət qoyur:** “Hər bir şəxs konstitusiya və qanunlara dönmədən əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələri layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir”.

Nazirliyin gənc əməkdaşları hər gün işə gələrkən ulu öndərin büstünün qarşısından keçir, müdrik kəlamlarını oxuyurlar. Onlar Heydər Əliyevi artıq əfsanəvi şəxs kimi qəbul edirlər. Lakin biz unutmamalı və fəxr etməliyik ki, bizim sıralarımızda Heydər Əliyevlə bilavasitə təmasda olan, onun rəhbərliyi altında çalışan şəxşlər vardır. Biz onların ulu öndərdən əxz etdikləri dəyərlərdən bu gün də faydalanırıq.

Ümummilli lider Heydər Əliyevin ədliyyə sistemində fəaliyyətin yüksək tələblər səviyyəsində qurulması üzrə xidmətləri hazırda öz bəhrəsini verməkdədir. Onun başladığı köklü islahatların nəticəsidir ki, müasir Azərbaycan ədliyyəsinin inkişafı davamlı prosesə çevrilmişdir.

Həyata keçirilən səmərəli hüquqi islahatlar kursu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, qısa dövr ərzində imzalanan fərman və sərəncamlar ölkəmizin dinamik

yüksəlişini təmin etmiş və həyata keçirilən islahatlara yeni təkan vermişdir. Ölkə başçısı tərəfindən 6 fevral 2009-cu il tarixdə "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramının təsdiq edilməsi ədliyyə orqanlarının və məhkəmələrin inkişafının təmin edilməsi, yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, sosial, normativ-hüquqi və maddi-texniki təminatın yaxşılaşdırılması, infrastrukturun yeniləşdirilməsi məqsədi daşıyır.

Dövlət Proqramına müvafiq olaraq regionlarda hüquq təsisatlarının inkişafı, yerlərdə əhalinin ədliyyə orqanlarına müraciət imkanlarının asanlaşdırılması, bu orqanların işinin əlaqələndirilməsi məqsədilə Gəncə, Şəki və Şirvan regiona ədilliyyə, Qax və Qəbələ qeydiyyat şöbələrinin, habelə Salyan, Samux və Siyəzən rayon dövlət notariat kontorlarının yeni müasir inzibati binaları istifadəyə verilmişdir.

Bununla yanaşı, məhkəmələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, inzibati binalarla təmin edilməsi və fəaliyyəti üçün lazımi iş şəraitinin yaradılması ilə bağlı konkret addımlar atılır. Bakı Apelyasiya Məhkəməsi, Bakı şəhərinin Yasamal, Nərimanov və Binəqədi rayon məhkəmələri üçün yeni inzibati binaların inşası məqsədilə müvafiq torpaq sahələri ayrılmış, digər məhkəmə binalarının inşası, yenidən qurulması və əsaslı təmirinin aparılması məqsədilə mütərəqqi beynəlxalq təcrübə öyrənilməklə layihələr hazırlanmışdır. Məhkəmələrin yüksək statuslarına uyğun layihələndirilən bu binalarda müasir tələblərə cavab verən iş prosesinin təşkilinə, vətəndaşların məhkəmələrə müraciət imkanlarının sadələşdirilməsinə, onların məhkəmə fəaliyyəti barədə məlumatlılığının genişləndirilməsinə xüsusi diqqət yetirilmişdir.

Həmçinin penitensiar sistemin fəaliyyətinin təkmilləşdirilməsi, məhkumların və təqsirləndirilən şəxslərin saxlanma şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər diqqət mərkəzində saxlanılmışdır. Bu məqsədlə ötən il inşası başa çatdırılmış penitensiar kompleks – Bakı istintaq təcridxanasının birinci buraxılış obyektləri istifadəyə verilmiş, bununla da 120 il əvvəl Bayılda inşa edilmiş və məhkumların hüquqlarının təmin edilməsi baxımından müasir tələblərə cavab verməyən 1 saylı Bakı istin-taq Təcridxanası ləğv olunmuşdur. Dövlət başçısı yeni binaya baş çəkərək yaradılmış şəraitlə tanış olmuş, insan haqlarının müdafiəsində ədliyyə orqanları və məhkəmələrin infrastrukturunun möhkəmləndirilməsinin əhəmiyyətini qeyd etmiş, zəruri göstərişlər vermişdir.

Dövlət Proqramına müvafiq olaraq ötən ilin may ayında açılışı ölkə başçısı cənab İlham Əliyev tərəfindən edilən Əhalinin Dövlət Reyestri Xidmətinin müasir standartlara cavab verən, yeni informasiya-kommunikasiya texnologiyaları və arxiv avadanlıqları ilə tam təmin olunmuş binası da istifadəyə verilmişdir. Nəticədə, əhali üçün əvvəllər mümkün olmayan, daha çevik xidmətlərin göstərilməsinə başlanılmış, burada mövcud olan informasiya sistemləri vasitəsilə elektron məlumat mübadiləsi, əsaslı təhlillərin aparılması imkanları yaradılmışdır. Əhalinin Dövlət Reyestrinin tamlığının təmin edilməsi ilə əlaqədar akt qeydləri üzrə 17 milyona yaxın texnoloji əməliyyat aparılaraq onların elektron informasiya bazasına daxil edilməsi təmin olunmuşdur. Yeri gəlmişkən, bu informasiya sistemlərindən istifadə nəticəsində, xeyli sayda insanın öz övladlarına ula öndərin adını verməsinin, bununla da ona olan səmimi hisslərini bir daha nümayiş etdirmələrinin şahidi oluruq.

Ulu öndərin kadrların seçilməsi ilə bağlı vaxtilə nazirliyin rəhbərliyinə verdiyi tövsiyələrə uyğun olaraq fəaliyyətin əsas və vacib istiqamətlərindən biri olan ədliyyə sistemində kadr hazırlığı və peşəkarlıq səviyyəsinin artırılması da daim diqqət mərkəzindədir. Bu məqsədlə nazirlikdə yaradılmış müsabiqə komissiyaları ədliyyə orqanlarına şəffaf prosedurlarla, test imtahanı və müsahibə yolu ilə yüksək nəzəri hazırlığa malik yüzlərlə gənc mütəxəssisin işə qəbulu prosesini həyata keçirir. Eyni zamanda, İxtisas Komissiyası tərəfindən notariuslar və bu vəzifəyə namizədlər üçün imtahan və müsahibələr təşkil edilmiş, Ədliyyə tarixində ilk dəfə olaraq notariat fəaliyyəti ilə məşğul olmaq üçün müvafiq şəhadətnamələr verilmişdir. Son dövrdə daha 124 nəfərə belə şəhadətnamələrin verilməsi barədə qərar qəbul olunmuşdur.

Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə yaradılmış ədliyyə fəaliyyətinin normativ-hüquqi əsasları daha da təkmilləşdirilir. 2006-cı il aprel ayının 18-də ölkə Prezidenti tərəfindən nazirliyin yeni Əsasnaməsi təsdiq olunaraq ona hüquq-mühafizə orqanı statusu verilmiş, həmin ilin may ayında isə "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" qanun qəbul edilmişdir. Dövlət başçısı tərəfindən "Ədliyyə orqanlarının inkişafı haqqında" 17 avqust 2006-cı ildə fərman imzalanması və nazirliyin yeni strukturunun təsdiq edilməsi Azərbaycan ədliyyəsinin inkişafında yeni mərhələ olmuşdur.

Ədliyyə sisteminin inkişafında və beynəlxalq hüquqi yardımın səmərəliliyinin artırılmasında xarici əlaqələrin rolu nəzərə alınaraq nazirliyimiz son 5 ildə 13 ölkənin, o cümlədən Fransa, İtaliya, Almaniya, Rumıniya, Slovakiya, Bolqarıstan, Çin, İran və digər ölkələrin ədliyyə nazirlikləri ilə əməkdaşlığa dair sazişlər bağlamışdır. Nazirlik hazırda Azərbaycan dövlətinin qoşulduğu 14 beynəlxalq Konvensiya üzrə mərkəzi və əlaqələndirici orqan qismində müəyyən edilmişdir.

Ölkəmizin iştirakçısı olduğu konvensiyalar, habelə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal mexanizmi üzrə milli məruzələrin hazırlanmasında və təqdimatında fəal iştirak edilir. **Nazirliyin BMT, Avropa Şurası, ATƏT, Beynəlxalq Prokurorlar Assosiasiyası, Beynəlxalq Qırmızı Xaç Komitəsi və digər mötəbər təşkilatlarla sıx əməkdaşlıq münasibətləri də inkişaf etməkdədir. Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycanın ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov bu ilin aprelində Braziliyanın Salvador şəhərində BMT-nin Cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsi üzrə ali forumu olan** 12-**ci Konqresində ölkəmizin nümayəndə heyətinə rəhbərlik etmiş və konqresin vitse-prezidentlərindən biri seçilmişdir. Azərbaycan nümayəndəsinin konqresin rəhbərliyində təmsil olunması dövlətimizin cinayətkarlığa qarşı mübarizədə səmərəli beynəlxalq əməkdaşlığı üçün daha geniş imkanlar yaratmışdır.** Avropa Komissiyası ilə səmərəli əməkdaşlıq qurularaq 2009-2011-ci illər üzrə "Azərbaycanda ədliyyə islahatlarına dəstək" proqramının icrası üzrə zəruri işlərin görülməsinə başlanılmışdır. Həmçinin, Ədliyyə Nazirliyi tərəfindən Dünya Bankı ilə birgə həyata keçirilən "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi çərçivəsində ədliyyə orqanlarının fəaliyyətinin daha da təkmilləşdirilməsi ilə əlaqədar irimiqyaslı işlər görülür.

Ədliyyə Nazirliyi ölkə Prezidentinin tapşırıqlarına əsasən yoxsul əhalinin vətəndaş hüquqları barədə məlumatlandırılması və onların pulsuz hüquqi yardım xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi məqsədilə bölgələrdə 10 hüquqi məsləhət xidməti mərkəzlərinin yaradılmasını təmin etmişdir. Mərkəzlərin zəruri biliyə malik hüquqşünas kadrlarla komplektləşdirilməsi, həmçinin lazımi avadanlıq və qanunvericilik aktları ilə təchiz olunması istiqamətində tədbirlər həyata keçirilmişdir.

Əhalinin hüquqi maarifləndirilməsi işində fəal iştirak edən nazirliyin 4 internet saytı fəaliyyət göstərir, 4 hüquq jurnalı, "Ədliyyə" qəzeti və digər nəşrləri dərc olunur.

Görülən işlər nəticəsində fəaliyyətinin əsasları ulu öndər tərəfindən yaradılmış Ədliyyə Nazirliyi dövlət orqanları sistemində çox nüfuzlu bir quruma çevrilmişdir və onun səlahiyyət dairəsi getdikcə genişlənir. Təsadüfi deyil ki, sahibkarlığın inkişafı və istehlakçıların hüquqlarının qorunması ilə bağlı məsələləri daim diqqət mərkəzində saxlayan ölkə başçısının 13 aprel 2010-cu il tarixli fərmanı ilə sahibkarlıq sahəsində yoxlamaların mütəmadiliyi haqqında məlumatın əldə edilməsini mümkün edən vahid məlumat reyestrinin aparılması nazirliyin səlahiyyətinə aid edilmişdir.

Ulu öndər tərəfindən başlanmış və bu gün də davam etdirilən işlər Azərbaycanda həyata keçirilən islahatların real təzahürü olmaqla, ölkənin hərtərəfli tərəqqisinə xidmət edir.

**Hər il olduğu kimi, bu il də respublikamızda dahi öndərin doğum gününə həsr olunmuş tədbirlər keçirilir. Ədliyyə Nazirliyinin əməkdaşları ümummilli liderin əziz xatirəsinə hörmət əlaməti olaraq Heydər Əliyev Fondunda şərəfli ömrünü bütünlüklə xalqımızın və dövlətimizin tərəqqisinə həsr etmiş görkəmli siyasi xadim Heydər Əliyevin mənalı həyatı və dövlətçilik fəaliyyətinə dair zəngin təəssürrat yaradan foto-eksponatlarla tanış olmuş, bu dahi şəxsiyyət haqqında "Böyük ömrün anları" filminə baxmışlar.**

Heç kəs şübhə etmir ki, ədliyyə işçiləri ulu öndərimzin müəyyən etdiyi dövlətçilik amallarına sadiq qalaraq ölkəmizin daha da inkişafı və qüdrətlənməsi naminə möhtərəm Prezidentimizə layiqli yardımçı olmaq üçün daim əzmlə çalışacaqlar.

Fürsətdən istifadə edərək, ölkəmizin əsl bayram təntənəsi yaşadığı ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibətilə xalqımızı təbrik edirəm.

**"Respublika"**.-2010.-14 may.-N 102.-S.5.

# YAŞAYAN VƏ YAŞADAN LİDER

**İntizar Məmmədova,**
BDU-nun psixologiya kafedrasının dissertantı

**Ölməz rəhbərə hörmət və ehtiram hissi ilə**

Həyatın məqsədi yaratmaq və mümkün qədər parlaq yanmaqdır, öz fəaliyyətini, həyatını adamlara həsr etməyən xoşbəxt ola bilməz. İnsan təklikdə sevinə bilər, nəşələnər, lakin xoşbəxt ola bilməz.

**Fransız yazıçısı xanım de Stal**

Şəxsiyyətin islam modelində əsas cəhət Allah iradəsinin ciddi və qüsursuz olaraq həyata keçirilməsidir.

Fəlsəfə tarixində insan şüurlu varlıq kimi zəruri olaraq özünün bu dünyadakı yerini – həm mənşəyinə, həm də indiki mövcudluğuna görə mənliyi ilə dünya arasındakı əlaqəni, birliyi və fərqi müəyyənləşdirməyə çalışır. İnsan öz mahiyyətinə görə yaradıcıdır. O, həm özünü, həm də öz dünyasını yaradır. Heydər Əliyev öz dünyasını yaratmaqla bərabər dünyanı xeyir və ədalət əsasında qurdu.

Fəlsəfə tarixində insan varlığı geniş nəzəri səpkidə araşdırılır, həyatın mənası, insanın mahiyyəti, məqsədi və idealı kimi məsələlər tədqiq edilir. Belə ki, fəlsəfi məsələ kimi, məhz insan çıxış edir. Lakin insan həm də onu şəxsiyyət kimi müəyyənləşdirən keyfiyyət və xassələrin daşıyıcısıdır.

İnsan haqqında müxtəlif konsepsiyalar olubdur. İslamın insan haqqında görüşləri isə tamam başqadır. İnsanları Yaradana görə sevin, o sizləri başqalarına sevdirər. Mən düşünürəm ki, xalqın Ümumliderə olan sevgisi, onun insanlığa verdiyi dəyərin məntiqi təcəssümüdür.

Hər bir şəxsin həyatının məqsədi və mənası, eyni zamanda, bütün insan tarixinin, insanın yaşadığı cəmiyyətin məqsəd və mənasına təsir göstərən sosial ideyalar və fəaliyyətlər ilə sıx əlaqədardır.

May ayı türk dünyası üçün mübarək aydır. Belə ki, 1918-ci il mayın 18-də Mustafa Kamal Paşa Atatürk İstanbuldan Anadoluya gedərək, vətən və millət naminə savaşa başlamış və sonralar bu günü özünə ad günü götürmüşdür. Bundan 10 gün sonra isə Şərqdə ilk demokratik respublika olan Azərbaycan Demokratik Respublikası qurulmuşdur. Beş il sonra-1923-cü il mayın 10-da gələcək müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, müdrik siyasi şəxsiyyət və görkəmli dövlət xadimi, bütün türk dünyasının iftixarı, ulu öndər Heydər Əliyev dünyaya gəlmişdir. Bu faktlar may ayının qardaş xalqlar üçün, doğrudan da, şərafətli bir ay olduğunu deməyə bizə əsas verir. Həmçinin, 1923-cü il türk aləmi üçün əlamətdar bir il- Türkiyə Respublikasının yarandığı ildir.

Bəli, türk dünyası üçün mühüm tarixi hadisələrlə əlamətdar olan bir dövrdə anadan olan Heydər Əliyev də öz xalqının milli varlığını dünyaya tanıtmaq və onun müstəqil dövlətini yaradaraq, onu daim zəfərlərə doğru aparmaq kimi olduqca çətin və şərəfli bir missiyanı onu Azərbaycana bəxş edən Tanrının bu xalqa olan istəyinə layiq səviyyədə həyata keçirmişdir. Ümummilli lider kəskin zəka, analitik təfəkkür, yüksək milli-mənəvi dəyərlərə malik şəxsiyyət, filosof idi. Bu xüsusiyyətlər ulu öndərdə sonradan qazanılmış xüsusiyyətlər deyildi, Uca Tanrının lütfü idi. O, dahi olaraq doğulmuşdu. Sanki Azərbaycan xalqına xas bütün xüsusiyyətlər, əsrlər boyu cilalanaraq ümummilli lider Heydər Əliyev şəxsiyyətində təcəssüm olunmuşdu.

**Ölüm sevinməsin qoy, ömrünü vermir bada,**
**El qədrini canından daha əziz bilənlər,**
**Şirin bir xatirədək qalacaqdır dünyada,**
**Sevərək yaşayanlar, sevilərək ölənlər.**

Azərbaycan şairi Səməd Vurğuna aid olan bu misralar Azərbaycan şeirini və ədəbiyyatını özünə yaxın görən hər kəs tərəfindən çox yaxşı bilinməkdədir. Bəşəriyyət yolunun başlanmasından etibarən hər bir toplum, zəka işığının içərisində yetişdirən fikir adamlarından – öndərlərindən almışdır. Hər toplum tarixi dəyişim qarşısında dahi bir liderə ehtiyac duymuşdur – Sevərək yaşayan və yaşadan liderə.

Bir insan olaraq, anlayışın və mərhəmətin, bir lider olaraq, əzəmətin, bir vətəndaş olaraq, həyatın şüarını, vətəninin, xalqının gələcəyinə həsr etməyin minlərlə Azərbaycan gəncinin gələcəyinə çağırışdır.

Ulu öndərin xalqa müraciəti zamanı onun millətə, vətənə dərin sevgisini duymamaq mümkün deyil.

“Bu siyasəti mən onun üçün apara bilirəm ki, bu, mənim iradəmdir, həyatımın qayəsidir, mənasıdır.”

“Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəlimizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub.”

“Heç bir qüvvə Azərbaycan müstəqilliyini əlindən ala bilməz, bundan sonra heç bir qüvvə Azərbaycan dövlətçiliyini məhv edə bilməz”.

Müstəqil Azərbaycanın keçdiyi sınaqlar dövlətçiliyimizin ən ağır günlərdə ümummilli lider Heydər Əliyevin göstərdiyi qətiyyət və əzmkarlıq bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyib.

Azərbaycan tarixində Heydər Əliyev silinməz izlər buraxmışdır. Onun fəaliyyəti nəticəsində qazanılan nailiyyətlər Azərbaycan dövlətçiliyinin bugünü və gələcəyi baxımından son dərəcə dəyərlidir. Azərbaycanın əldə etdiyi uğurların, nailiyyətlərin təməlində ulu öndərin hazırladığı unikal inkişaf konsepsiyasının fundamental əsasları dayanır.

Bütün mənalı həyatını xalqına həsr etmiş Heydər Əliyevin siyasi xadim və dövlət rəhbəri kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, dövlət idarəçiliyi məktəbi yaratmışdır. Mak-Qreqor qeyd etmişdir ki, "idarəetmə qabiliyyəti insan münasibətlərini tənzimləmək bacarığından ibarətdir. "Bəşər tarixində iki müxtəlif ictimai-siyasi quruluşun birinin tənəzzülü, digərinin tərəqqisi ilə müşayiət olunan siyasi proseslər dalğasının kulminasiya nöqtəsində uğurlar qazanan Heydər Əliyev siyasi məktəbi, idarəçilik sistemi beynəlxalq idarəetmədə ən optimal variantdır. Azərbaycan xalqının daha bir çox nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən xalqımızın rifahı naminə faydalanacaqdır. Ümummilli lider hər zaman yaşadığı dövrün qəlibləşmiş stereotip və şablon düşüncə tərzindən üstün olan innovativ ideyalarla çıxış etmişdir. Akademik Ramiz Mehdiyevə istinadla deyə bilərik ki, siyasi lider dahiliyi yaşadığı zamana və gələcəyə təsiri, idarəetmə qərar qəbul etmə tərzlərində novatorluq keyfiyyətləri ilə önəmli sayılır. Belə ki, ulu öndər bütün keyfiyyətlərinə yüksək mənəviyyatına, siyasi liderlik xüsusiyyətlərinə görə alternativsiz, fenomenal şəxsiyyət idi.

Bütün həyatını doğma Azərbaycanın xoşbəxtliyinə həsr edərək, bu yolda ölçüyəgəlməz və misilsiz xidmətlər göstərən, bəşər tarixində təkrarı olmayan dahi Heydər Əliyev Azərbaycanı müstəqil bir dövlət kimi ən ağır təhlükələrdən xilas etmiş, qısa zaman ərzində ölkədə sabitlik və əmin-amanlığı bərqərar edərək, respublikamızı inkişaf yoluna səfərbər etmiş, xalqımızın iqtisadi, sosial-mədəni tərəqqisini stimullaşdıran, ümumən Azərbaycan cəmiyyətinin hərtərəfli inkişafını təmin etməyə qadir olan müdrik siyasi strategiyanın müəllifi olmuşdur.

Həyatı mənalı olan dahi şəxsiyyət respublikanı dünya birliyində layiqli mövqeyə sahib etmək kimi misilsiz tarixi missiyanı yüksək səviyyədə yerinə yetirməklə bərabər, eyni zamanda, xalqın həyat səviyyəsinin yüksəldilməsi istiqamətində məqsədyönlü dövlət kursunun əsasını qoymuşdur.

Əlbəttə, bu böyük xidmətləri Azərbaycan xalqı daim sonsuz minnətdarlıq hissi ilə xatırlayır və xalqımız üçün fərəhlidir ki, dünya şöhrətli ümummilli liderimizin müdrik siyasəti möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu isə müstəqil ölkəmizə yeni-yeni tarixi nailiyyətlər qazandırır, dövlət müstəqilliyimiz daim güclənir və Azərbaycan Cənubi Qafqazın lider ölkəsi olmaqla dünya birliyində fəal mövqe qazanır.

Bir Azərbaycan gənci olaraq bu həqiqətləri vurğulamaqda misilsiz qürur duyuram:

- Yolunuzda ümidlə irəliyə doğru gedərək bizə irs qoyub getdiyiniz yolla Azərbaycanın tərəqqisi və çiçəklənməsi naminə fədakarlıqla çalışacaq, milli birliyimizə sədaqətlə xidmət göstərəcək, bizlərə əmanət etdiyin bayrağı qürurla gələcəyə aparacaq, hər zaman müdrik baxışınla gələcəyə baxacaq, insanlığa verdiyin dəyər hər zaman dəyərimiz olacaqdır. Heç bir siyasi qüvvə, heç bir güc övladlarını Heydər Əliyev ideyalarından, təməl prinsiplərindən kənarlaşdıra bilməz. Yolunuz yolumuz, gələcəyə ümidlə baxışınız gələcəyimizin təminatıdır!

**"Səs".-**2010.-15 may.-N.85.-S.3.

# HEYDƏR ƏLİYEV VƏ GƏNCLƏRİMİZİN HƏRBİ-VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ

**Rafiq BAXŞƏLİYEV,**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru,
İbtidai hərbi hazırlıq və fiziki təlim kafedrasının müdiri, professor.

“Ordu mövzusu, ordunun yaranması, formalaşması bizim bütün həyatımızda əsas mövzulardan biri olmalıdır, gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsi bizim əsas vəzifələrimizdən biri olmalıdır və bu vəzifələri biz ardıcıl surətdə həyata keçirməliyik. Ona görə də mən bunu gənclər təşkilatının əsas vəzifəsi hesab edirəm. Hər bir Azərbaycan gəncinə isə gənclik vaxtına çatana qədər özünü orduda xidmət etmək üçün hazırlamağı tövsiyə edirəm”.

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının qüdrətli dövlətə çevrilməsinin əsas atributunu və amilini onun silahlı qüvvələrinin müasir tələblərə cavab verəcək səviyyədə qurulmasında görürdü. Bu məsələnin vacibliyini dərindən dərk edən ümummilli liderimiz Heydər Əliyev hələ Sovetlər dönəmində, SSRİ-nin iflas təhlükəsi hələ heç kimin ağılına gəlməyən bir vaxtda milli hərbi kadrlar hazırlanmasının yollarını axtararaq, onun həlli yollarını seçmişdir. Ulu öndər bunun həlli yollarından birini SSRİ-nin müxtəlif ali hərbi məktəblərinə ildə 800-1000 nəfər azərbaycanlı gənci hərb sənətinin müxtəlif sahələrini öyrənməyə göndərməkdə görürdü və bu istiqamətdə əməli tədbirlər həyata keçirirdi. İkinci istiqamət isə ölkə daxilində milli hərbi təhsilin təşkili oldu. Rusiyada fəaliyyət göstərən “Suvorov”, “Naximov” və başqa uşaq hərbi məktəbləri ilə yanaşı, Bakıda da belə bir məktəbin açılmasına mərkəzi hakimiyyətdən icazə almaq çox çətin iş olsa da, Heydər Əliyev buna nail oldu və Çəmşid Naxçıvanski adına Hərbi Lisey, bir qədər sonra isə Azərbaycan Dövlət Pedaqoji Universitetində respublikamızda ilk dəfə milli zabit-müəllim hazırlayan İbtidai hərbi hazırlıq və fiziki təlim fakültəsi təşkil edildi.

1978-1980-ci illərdə həmin fakültənin maddi-texniki bazası yaradıldı və 1981-ci ildə ilk tələbə qəbulu elan edildi.

Qeyd etməliyik ki, fakültəni bitirən məzunlara leytenant hərbi rütbəsi verilirdi. Ulu öndərimiz Azərbaycanda belə bir fakültənin yaranmasının ikinci böyük əhəmiyyətini gənclərimizin hərbi-vətənpərvərlik tərbiyəsinin geniş miqyasda təbliğ edilməsinə ciddi təsirində görürdü. Həqiqətən, güclü ordu yaratmaq, Vətəni və doğma torpağı canından artıq sevən gənclər yetirmək istəyiriksə, bu proses təhsilin bütün pillələrində, hərbi hissələrdə güclü təbliğ və tədris edilməlidir. Bunun üçün isə bu tədris və təbliğlə məşğul olan insanlarda yüksək vətənpərvərlik hissi olmalıdır. Mən böyük sevinc hissi ilə deyə bilərəm ki, 20 ildən artıq İbtidai hərbi hazırlıq və fiziki təlim fakültəsinin dekanı olduğum dövrdə tələbələrimizdə sözün həqiqi mənasında ulu öndərin tövsiyə etdiyi vətənpərvərlik hissini özlərində yüksək səviyyədə tərbiyə edilməsinin canlı şahidi olmuşam.

Məzunlarımızın işlədiyi hər hansı bir təhsil müəssisəsində və ya hərbi hissədə olarkən mən bunun canlı şahidi kimi özümü xoşbəxt hiss etmişəm.

Məzunlarımız yüksək səviyyədə hərbi-vətənpərvərlik tərbiyəsini təbliğ edir və bunun müsbət nəticəsini özləri də hiss edirlər. Bilavasitə hərbi xidmətin özü gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin ən məsul mərhələsi və zirvəsidir.

Qeyd etməliyəm ki, ulu öndər Heydər Əliyevin yaratdığı C. Naxçıvanski adına Hərbi Liseydə bizim fakültənin məzunları çox uğurla işləyir. Onların gələcək hərbçilərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə edilməsində və Vətənin müdafiəsinə hazırlanmasında böyük xidmətləri vardır.

Hərbi-tətbiqi təlimlər ekstremal və psixoloji gərginlik şəraitində aparılır, belə gərginliyə dözmək üçün ilk növbədə hərbçinin orqanizminin yüksək fiziki gərginliyə uyğunlaşmasını təmin etmək üçün şəxsi heyətin zəruri fiziki hazırlığı müstəsna əhəmiyyət kəsb edir. Bu baxımdan məzunlarımız həm taqım komandiri kimi hərbi işlərin öhdəsindən bacarıqla gəlir, həm də onlar yüksək səviyyədə fiziki hazırlığın artırılması üzrə “fiziki təlim” ixtisasına yiyələnən mütəxəssisdirlər. Bu mənada hərbi hissələrdə xidmət edən məzunlarımızın taqımı və ya bölməsi fiziki hazırlıq prosesini daha mükəmməl yerinə yetirə bilirlər.

Məzunlarımızın böyük əksəriyyəti respublikamıza qarşı elan olunmamış müharibə zamanı Vətən qarşısında borclarını ləyaqətlə yerinə yetirmişlər, onlardan 16 məzunumuz şəhidlik zirvəsinə yüksəlmiş, Mətləb Quliyev və Mirələkpər İbrahimov Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşlər.

90-cı illərdə respublikamızın dövlət müstəqilliyi bərpa olunarkən peşəkar hərbi kadrlarımız kifayət qədər idi. Ancaq o zaman ölkəni idarə edə bilməyən səriştəsiz iqtidarlar respublikanı ağır faciələrlə üzləşdirdilər. O zaman xarici havadarların yaxın köməyi ilə erməni silahlı qüvvələri rayonlarımızı dalbadal işğal etdilər. Bu ağır vəziyyətdən çıxmaq, ölkəni, xalqı düşdüyü fəlakətdən xilas etmək ulu öndər Heydər Əliyevin

respublikamızda yenidən hakimiyyətə qayıdışını və dövlətin mühüm dayağı kimi ordu quruculuğunun başlanmasını tarixi zərurətə çevirmişdi.

Ulu öndərimiz Heydər Əliyev qeyd etdiyimiz kimi, uzun illər boyu respublikamız üçün kifayət qədər hərbi kadrlar hazırlamışdı. Bu mütəxəssisləri bir araya toplamağa və pərakəndə özünümüdafiə dəstələrini bir araya gətirərək ordu quruculuğuna başlamağa böyük sərkərdəmiz, ulu öndər Heydər Əliyevin qətiyyəti, cəsarəti, böyük idarəçilik təcrübəsi imkan yaratdı. O vaxt vəziyyət çox mürəkkəb və gərgin idi. Uca Tanrı bizi ağır vəziyyətdə tək qoymadı. Heydər Əliyevi xalqımıza köməyə yetirdi və çox qısa müddətdə ölkədə əmin-amanlıq yaratdı, iqtisadi, sosial və digər sahələrlə yanaşı, ordu quruculuğunu həyata keçirdi.

Həmin vaxtlar respublikamızda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin və Azərbaycan Dövlət Pedaqoji Universitetin İbtidai hərbi hazırlıq və fiziki təlim fakültəsinin məzunları hərbi komissarlıqlara çağırıldılar və onlar ölkəmizdə hərbi quruculuqda çox fəal iştirak etməyə başladılar. İndi nizami ordumuz Avropa standartları səviyyəsinə yüksəlmişdir. Ulu öndərimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Prezidentimiz ilham Əliyevin hərtərəfli fəaliyyəti sayəsində milli ordumuz daha da qüdrətlənib və qabaqcıl NATO standartları səviyyəsinə yüksəlib. indi nizami ordumuz Rusiya, Türkiyə və digər dövlətlər ilə hərbi əməkdaşlıq edir.

Son illərdə Azərbaycan inkişaf göstəricilərinə görə regionda lider mövqeyə çıxmışdır, bu isə ölkəmizin ordu quruculuğunda kifayət qədər mühüm göstəricilərə nail olmasına şərait yaratmışdır. İndi Azərbaycanın təkcə Cənubi Qafqazda deyil, həm də keçmiş postsovet məkanında da ən güclü, qarşıya qoyulan bütün tapşırıqları müvəffəqiyyətlə yerinə yetirməyə qadir olan bir ordusu var.

**“Respublika“**.-2010.-27 may.-N 113.-S.7.

## MÜASİR AZƏRBAYCANIN BANİSİ

**Yuriy İVANOV,**
"Azəryolservis" ASC,
"Yolkonstruksiya" MMC-nin baş direktoru,
Prezidentin fərdi təqaüdçüsü.

Müstəqil dövlət qurmaq xoşbəxtliyi yalnız öz içərisində güclü şəxsiyyət, qüdrətli lider yetişdirmiş xalqlara nəsib olur. Bu, tarixin sınağından çıxmış gerçəklikdir. Xalqı vahid milli ideya ətrafın-da birləşdirməyi bacaran lider onu öz müqəddəs arzularına qovuşdurmağa qadirdir. Heydər Əliyev məhz belə bir nadir şəxsiyyət və milli lider kimi XX əsrin sonlarında Azərbaycanı başının üstünü almış bütün bəlalardan mətinliklə qorudu, onun dövlət müstəqilliyini saxlaya və möhkəmləndirə bildi.

Yaxşı xatırlayırıq ki, ötən əsrin 90-cı illərinin əvvəllərində, xüsusən də 1993-cü ilin iyununda Azərbaycanın bir dövlət kimi mövcudluğu şübhə altına düşmüşdü. Elə bir xaos, özbaşınalıq şəraiti yaranmışdı ki, bundan baş çıxarmaq hər kəsin işi deyildi, yaxın gələcəkdə respublikada sabitliyin bərpa olunacağına bütün dünya şübhə ilə yanaşırdı. Problemlər baş alıb gedirdi, həmin problemləri aradan qaldıra biləcək yeganə qüvvə isə yalnız Heydər Əliyev şəxsiyyəti ola bilərdi. Ölkəni görünməmiş bəlalardan xilas etmək üçün lazım olan enerji, müdriklik və uzaqgörənlik yalnız bu nadir insanda var idi. Çünki xalq Heydər Əliyevin 1969-cu il-də hakimiyyətə gələndən sonra nəyə qadir olduğunu görmüşdü.

Xalqın çağırışına heç vaxt biganə qalmayan ulu öndərimiz 1993-cü il iyunun 9-da Naxçıvandan respublika pay-taxtına gəldi və iyunun 15-də Azərbaycan Respublikasının Milli Məclisinin sessiyasında Ali Sovetin sədri seçildi.

Heydər Əliyevin respublika rəhbərliyinə bu qayıdışı siyasi-iqtisadi böhran içində boğulan Azərbaycanı böyük fəlakətlərdən xilas etdi. Elə o zaman Heydər Əliyev çıxışlarının birində belə demişdi: **"Azərbaycan bərbad vəziyyətdədir, bəzi adamlar on gündür ki, barmaq-barmağa vurmayıblar. Kabinetlərdə boş-boş şayiələrlə məşğul olurlar. Mən heç kəsə heç bir qarantiya vermirəm. Mən özümü peyğəmbər hesab etmirəm. Fəqət bu ağır vəziyyətdən çıxmaq üçün fəaliyyət göstərəcəyəm".** Bəli, indi bu fəaliyyətin nəticələri artıq hər birimizə bəllidir. Məhz bu fəaliyyətin hesabına Azərbaycan yaşayır, tərəqqi edir. O dövrdə müdrik rəhbərin qısa zaman

kəsiyində həyata keçirdiyi tədbirlərlə cəbhə xəttində atəşkəsə nail olundu, qanunsuz silahlı dəstələr zərərsizləş-dirildi, dövlət çevrilişi cəhdlərinin və terror aktlarının qarşısı alındı. Bununla da respublika ərazisində stabil, normal həyat bərqərar olundu.

Sabitlik əldə olunandan sonra dövlət quruculuğu istiqamətində təxirəsalınmaz addımlar atıldı, bir çox mühüm qanunlar qəbul edildi. Ölkə iqtisadiyyatının dirçəlişi yönümündə də çoxsaylı vacib müqavilə və proqramlar imzalandı, ayrı-ayrı sahələrində perspektiv layihələr, islahatlar həyata keçirildi.

Bu gün Azərbaycan dinamik inkişaf edən, dünya birliyində layiqli yer tutan, müstəqil siyasət yürüdən bir dövlətdir. İndi planetimizin çox yerindən nəzərlər dünyada ən böyük enerji layihələrinin gerçəkləşdiyi Azərbaycana yönəlib. Təkcə biz yox, bütün dünya bilir ki, "Əsrin müqaviləsi"nin və digər neft kontraktlarının, iqtisadi və strateji baxımdan misilsiz əhəmiyyətə malik BTC neft kəmərinin reallaşması Heydər Əliyevin xidmətidir. 1994-cü ildə çoxlarına qeyri-mümkün kimi görünən layihələri yalnız ulu öndərimizin şəxsi nüfuzu, qətiyyəti, uzaqgörənliyi sayəsində reallaşdırmaq mümkün olub.

Dünyanın məşhur siyasətçiləri, dövlət xadimləri Heydər Əliyevi siyasət nəhəngi, siyasət şahmatının mahir ustası adlandırırlar. O, tarixi perspektivləri qabaqcadan görmüş, ən çətin məqamlarda yeganə düzgün qərarlar qəbul etmək bacarığı ilə çoxlarını heyran qoymuşdur.

Azərbaycanın iri beynəlxalq layihələrdə iştirakı, Böyük İpək Yolunun bərpası, TRASEKA-nın reallaşması da ümummilli liderimizin bəşəri xidmətlərindəndir. Heydər Əliyev deyirdi: **"Heç bir ölkə, ən böyük ölkə də öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz… Tarixi böyük İpək Yolunun bərpası, milli və regional nəqliyyat strukturlarının, beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı Avrasiya məkanında sülhün, sabitliyin və tərəqqinin möhkəmləndirilməsi üçün böyük əhəmiyyət kəsb edir".**

Ümummilli liderimizin gərgin əməyi sayəsində 1994-cü ilədək davam edən

iqtisadi tənəzzülə son qoyuldu. Makro-iqtisadi göstəricilər ilbəil yüksəldi. Dinamik inkişaf dövrü başlandı.

Azərbaycan dövlət müstəqilliyinin möhkəmləndirilməsində milli sərvətlərimizdən ölkənin və xalqın mənafeyinə uyğun istifadə olunmasında ümummilli liderimiz Heydər Əliyevin uğurlu neft strategiyası olduqca

xüsusi əhəmiyyət kəsb edir. 1994-cü il sentyabrın 20-də dünyanın iri neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" çərçivəsində 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul Zirvə toplantısında Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin inşa olunmasına dair bağlanmış saziş Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində müstəsna rol oynadı.

Ulu öndərimiz Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında başlıca xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılmasıdır. 1995-ci ildə qəbul olunmuş ilk milli Konstitusiya müstəqil hüquqi və dünyəvi dövlət kimi Azərbaycanda ilk dəfə olaraq insan hüquqlarının qorunmasını öz siyasətinin prioriteti kimi qəbul etdi.

Böyük öndərimizin titanik fəaliyyətinin digər mühüm nəticəsi Azərbaycanın beynəlxalq aləmdə özünə layiqli yer tutması, dünyanın inkişaf etmiş dövlətləri ilə səmərəli əlaqələr çərçivəsində bərabərhüquqlu əməkdaşlığa nail olmasıdır. Ardıcıl, düşünülmüş xarici siyasət kursu Azərbaycan dövlətinə demokratik dəyərləri hər şeydən uca tutan, dünya dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri quran, qonşuları ilə dinc şəraitdə yaşamağa üstünlük verən sülhsevər ölkə imicini qazandırmışdır. Məhz ümummilli liderimizin gərgin səyləri və yenilməz iradəsi nəticəsində Azərbaycan bu gün dünya birliyi tərəfindən tükənməz təbii sərvətləri, iqtisadi imkanları ilə yanaşı, mədəni, elmi, intellektual, yaradıcı potensiala malik ölkə kimi qəbul olunur. İndi dünyanın qüdrətli dövlətləri regionla bağlı bir çox məsələlərin həllində ölkəmizin dəstəyinə arxalanır, onunla etibarlı tərəfdaş kimi hesablaşırlar.

Hamımız üçün çox doğma və əziz olan Heydər Əliyev dünya şöhrətli siyasətçi, zəmanəsinin ən böyük şəxsiyyəti idi. O, Azərbaycanın güclü, inkişaf etmiş qüdrətli dövlətə çevrilməsində, sənayemizin, kənd təsərrüfatımızın, sosial-iqtisadi sahələrin güclənməsi yolunda əlindən gələni əsirgəməmişdir. Ölkə vətəndaşlarının həyat səviyyəsinin yüksəlməsi pensiyaçıların, əlillərin, çoxuşaqlı ailələrin, əmək qabiliyyəti olmayan insanların sosial problemləri həmişə onun diqqət və qayğısı ilə əhatə olmuşdu. Heydər Əliyev ümumxalq məhəbbətini, istəyini təkcə öz vətənində deyil, bütün dünyada qazanmışdı. Buna görə də dünya siyasətçiləri, dövlət və hökumət rəhbərləri, siyasi xadimləri onu həmişə yüksək qiymətləndirir, onunla razılaşdırdılar. Ulu öndərimiz əvəzsiz, yeri görünən çox müdrik şəxsiyyət idi. Qazandığımız müstəqilliyə, əldə olunan sabitliyə, həyatımızdakı inkişafa və tərəqqiyə görə bizə bu böyük şəxsiyyətə çox borcluyuq.

Heydər Əliyev bütün mənalı ömrünü yalnız insanlığa və xalqına xidmət göstərməyə sərf etmişdi. Bu böyük şəxsiyyət Azərbaycan xalqının təhlükəsiz yaşaması, azadlıq haqqını tapması uğrunda mübarizə aparmışdı. "Haqqı tapdanan insanların arxasında güclü dövlət durmalıdır, ədalət durmalıdır". Bu ideya və prinsiplər Heydər Əliyevin istər milli təhlükəsizlik orqanlarında, istər sovet dönəmindəki siyasi fəaliyyətində, istərsə də Azərbaycanın Prezidenti olduğu son 10 ildə həyat devizi, amalı olub. Ümummilli liderimiz bu istiqamətdə zəngin milli-mənəvi dəyərlər yaradıb, ümumbəşəri dəyərlər formalaşdırıb.

Azərbaycan dövlətinə müstəqillik, əbədiyaşarlıq, xalqa bəxtiyarlıq bəxş edərək əbədiyyətə qovuşan böyük liderimiz əbədiyaşarlıq qazandı. Nə qədər ki dünyada müstəqil Azərbaycan dövləti var, Heydər Əliyev də yaşayacaqdır.

Ümummilli liderimiz Heydər Əliyevin milli və ümumbəşəri dəyərlərə söykənən ideyaları yüz illərlə yaşayacaq və qalib gələcəkdir.

Heydər Əliyevin adının əbədiləşdirilməsi üçün ən əsas istiqamət isə ümummilli liderimizin siyasi kursuna axıradək sədaqətli olmaqdır. Ümummilli liderimizin ideyalarının təntənəsi yolunda ləyaqətlə çalışmaq, müstəqil Azərbaycanın tərəqqisi naminə möhtərəm Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşmək, milli birliyə nail ol-maq onun xatirəsinə ən böyük ehtiramdır.

Azərbaycanda bu gün ümummilli liderimizin ideyaları nəinki yaşayır, hətta daha geniş şəkildə həyata keçirilir. Böyük öndərimizin başladığı, lakin axıra çatdıra bilmədiyi işlər onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Biz hamımız Azərbaycan xalqının və dövlətçiliyinin xilaskarı və yaradıcısı olan Heydər Əliyev irsinə daim sədaqətliyik və bundan sonra da belə olacağıq. Bizə qurtuluş bəxş etmiş ulu şəxsiyyətin, Azərbaycan xalqının dahi oğlunun pak əməlləri, müqəddəs ideyaları, arzuları və irsi həmişə yaşayacaqdır.

**"Respublika".-**2010.-8 iyun.-N 121.-S.4.

## XİLASKARLIQ MİSSİYASI

**Həvva MƏMMƏDOVA,**
Milli Məclisin deputatı,
tarix elmləri üzrə fəlsəfə doktoru

**Hər bir xalqın, hər bir ölkənin tarixində elə gün olur ki, tarixə çevrilərək qərinələrlə nəsildən – nəslə yaşayır, anılır. Xalqımızda belə bir kəlam var: "Ay var bir günə dəyməz, gün var min aya dəyər…" 15 iyun da belə günlərdən biridir. 15 iyun tariximizə qızıl hərflərlə yazılan bir gündür. 15 iyun təzəcə müstəqillik qazanmış Azərbaycan Respublikasının qorunub saxlanmasına, möhkəmlənməsinə, inkişafına zəmanət olan gündür. 15 iyun bütöv Azərbaycan xalqının öz dahi oğluna inam, dəyanət günüdür.**

Ötən əsr tariximizə bir nəzər yetirək. Azadlığa, suverenliyə can atan Azərbaycan xalqı 1918-ci il may ayının 28-də öz müstəqilliyini elan etdi. Xalq azadlığın nə olduğunu dərk edə bildi.

Cəmi 23 ay ömür sürən Azərbaycan Xalq Cümhuriyyəti öz vətəndaşları üçün az vaxt ərzində yetərincə iş gördü. Belə bir xalqın, belə bir ölkənin olduğunu dünyaya bəyan etdi. Əlbəttə, bunlar çox böyük tarixi xidmət idi. Görüləsi işlər hələ qabaqdaydı. Ancaq min təəssüflər olsun ki, rus bolşeviklərinin XI Qırmızı Ordusu vətənimizi işğal etdi, qazanılmış azadlığı beşikdəcə boğdu.

Azərbaycan xalqı sovet hakimiyyəti illərində də azadlığa, müstəqilliyə daim can atmışdır. Ona görə ki, 28 Mayın səpdiyi azadlıq toxumları hər cür məhrumiyyətə baxmayaraq, zəif də olsa, cücərməkdə davam edirdi.

SSRİ dağılmağa başlayanda Azərbaycan azadlıq mübarizəsi meydanına çevrildi və çox keçmədi, məqsədinə nail oldu. Ulu öndər Heydər Əliyevin təbirincə desək, "Azərbaycan Demokratik Respublikası ilk dəfə milli-azadlıq, müstəqillik toxumlarını bütün Azərbaycana səpdi. Bu toxumlar uzun müddətdən sonra cücərdi, boy atdı və nəhayət, 1991-ci ildə Azərbaycan yenidən öz dövlət müstəqilliyini əldə etdi".

Azərbaycan Respublikasının müstəqilliyini öncə qardaş Türkiyə (9 noyabr 1991-ci il) olmaqla dünya dövlətləri tanıdı. 1992-ci il martın 2-də Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatına (BMT) üzv qəbul olundu, bu təşkilatın qəbul etdiyi bir çox mühüm beynəlxalq konvensiya və paktlara qoşuldu. Yenicə müstəqillik qazanmış Azərbaycanın Türkiyə, ABŞ, Almaniya, Fransa, Böyük Britaniya, İran və İrlandiya Krallığında və başqa ölkələrdə səfirlikləri açıldı.

Bütün bunlarla bərabər, xalqın mübarizəsi və dönməz iradəsi ilə müstəqilliyini, suverenliyini elan etmiş Azərbaycan Respublikası ilk gündən çox mürəkkəb və ağır günlər yaşadı.

1988-ci ildə Ermənistan-Azərbaycan arasında yaranmış böhranlı vəziyyət müstəqillik dövründə daha da kəskinləşdi. Sovet hərbi qüvvələrinin köməyi ilə erməni daşnakları Dağlıq Qarabağda irimiqyaslı əməliyyatlar keçirərək azərbaycanlıları öz doğma yurdlarından qovub çıxarmağa başladılar.

Tarix dəfələrlə sübut etmişdir ki, azadlığı qazanmaq nə qədər çətindirsə, onu qoruyub saxlamaq daha çox çətin və mürəkkəbdir. Azadlıq, müstəqillik mübarizələri baş qaldırdıqda çox vaxt hakimiyyətə heç bir idarəçilik səriştəsi olmayan insanlar gəlirlər. Azərbaycanda da belə oldu. Ölkədə sürətli hakimiyyət dəyişiklikləri baş verdi. Belə ki, Ə. Vəzirovu A. Mütəllibov, bir ildən sonra isə onu Ə. Elçibəy əvəz etdi.

Ölkədə hakimiyyətdə boşluq yaranmışdı və onu ələ keçirmək üçün mübarizə gedirdi. Bütün bunlar isə xaos, başıpozuqluq yaradırdı. Azərbaycanın bu vəziyyətindən ermənilər havadarlarının köməyi ilə istifadə edirdilər. Hakimiyyətdə bu boşluğun nəticəsində 1992-ci il fevralın 26-da erməni daşnakları Xocalı faciəsini törətdilər. Bir qədər sonra isə düşmən xalqımızın mədəniyyət beşiyi olan Şuşanı işğal etdi.

1992-ci ilin mayında A. Mütəllibov iqtidarını devirib hakimiyyətə gələn Azərbaycan Xalq Cəbhəsi heç bir yeniliklə yadda qalmadı. AXC-Müsavat cütlüyünün populist çıxışları, ziyalılara arxa çevirmələri çox sürətlə onları xalqdan uzaqlaşdırdı.

AXC-Müsavat cütlüyünün iqtidarı dövründə respublikada iqtisadi-siyasi vəziyyət böhran halına çatdı. Hakimiyyətə gələnə qədər hey demokratiyadan dəm vuran Xalq Cəbhəsi-Müsavat partiyalarının liderləri öz fəaliyyətləri ilə sübut etdilər ki, onlar bu sahədə çox naşıdırlar.

AXC-Müsavat iqtidarının daxili siyasəti kimi xarici siyasəti də yarıtmaz oldu. Onların səriştəsiz xarici siyasəti ilə Azərbaycanın beynəlxalq mövqeləri daha da zəiflədi. Bütün bunlar isə Azərbaycan torpaqlarını işğal edən ermənilərin xeyrinə idi.

Azərbaycan tarixən çoxxalqlı bir məmləkət olmuşdur. Vətənimizdə dini, əqidə ayrılığına baxmayaraq hamı mehriban bir ailə kimi yaşamışdır. Ancaq AXC-nin birillik iqtidarı dövründə milli məsələ sahəsində buraxılan səhvlər nəticəsində Azərbaycanda parçalanma prosesi başlandı.

Azərbaycanı federativ respublikaya, hətta xanlıqlara bölmək çağırışları da eşidilirdi. Orduda vəziyyət də dözülməz haldaydı. Mərkəzləşmiş ordu olmadığından yaradılan silahlı dəstələr arasında əlaqə yox idi. Çox vaxt

belə hərbi birləşmələr düşmənlə deyil, bir-biri ilə münaqişə yaradırdılar. O illəri yaşayanlar bilirlər ki, 1993-cü ilin iyun ayında Azərbaycan Respublikasının taleyi, necə deyərlər, tükdən asılı vəziyyətdə idi.

Yaxşı ki, o vaxt xalqın inam, güvənc yeri olan xalqımızın dahi oğlu Heydər Əliyev var idi. Ağır günlərini yaşayan ölkənin hər yerində cavanı, qocası da, fəhləsi, kəndlisi, ziyalısı da başa düşürdü ki, Azərbaycanı bu fəlakətdən yalnız və yalnız Heydər Əliyev kimi müdrik dövlət və siyasi xadim qurtara bilər.

Artıq iqtidarda olan AXC-Müsavat cütlüyü də bunu başa düşürdü. Ona görə ki, 1993-cü il iyunun əvvəllərində Surət Hüseynovun rəhbərlik etdiyi 709 saylı hərbi hissə Gəncədə qiyam qaldırdı. Hökumət qüvvələri ilə qiyamçılar arasında baş vermiş toqquşmada 35 nəfər həlak oldu, 135 nəfər yaralandı. S. Hüseynov öz silahlı dəstəsini Bakıya yönəltdi. Yaranmış vəziyyətlə əlaqədar parlamentin sədri, baş nazir və üç güc nazirliyinin rəhbərləri istefaya getməyə məcbur oldular.

O vaxt Heydər Əliyev Naxçıvanda idi. Burda bir həqiqəti də xatırladaq ki, blokada vəziyyətində yaşayan Naxçıvanı Heydər Əliyev müdrikliyi, Heydər Əliyev dəyanəti xilas etdi. Naxçıvan MR Ali Məclisinin sədri kimi ulu öndər Türkiyə və İranın dövlət başçıları ilə görüşdü. 1992-ci il mayın 28-də Naxçıvan ilə Türkiyə arasında Sədərək-Dilicu "Ümid" körpüsü açıldı. İrandan Naxçıvana elektrik enerjisi verildi.

Bu bir həqiqətdir ki, əgər o vaxt Heydər Əliyev Naxçıvanda olmasaydı, ermənilər Azərbaycanın bu bölgəsini də işğal edəcəkdilər… Çıxılmaz vəziyyəti, təhlükəli proseslərin getdiyini görən iqtidar kömək üçün Heydər Əliyevə müraciət etdi. Azərbaycanın böyük vətənpərvər oğlu Heydər Əliyev ölkənin belə bir ağır günündə xalqın və iqtidarın təkidi ilə dəvəti qəbul etdi. 1993-cü il iyun ayının 9-da Bakıya gəldi. Xalqımız bu gəlişi ümidlə, sevinclə qarşıladı.

1993-cü ilin iyun ayını tariximizin dönüş nöqtəsi kimi qəbul etməyə tam haqqımız vardır. Heydər Əliyev öz müdrikliyi, dərin düşüncəsi, mükəmməl bacarığı, uzaqgörən siyasəti ilə Azərbaycanda vətəndaş müharibəsinin qarşısını almaq üçün siyasi manevrlər etdi. Hərbi müxalifəti neytrallaşdırmaq üçün Gəncəyə getdi. Hamı bu böyük şəxsiyyəti yüksək qarşıladı.

1993-cü il iyunun 15-də xalqın istəyi və dəstəyi ilə ümummilli lider Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Tariximizə qızıl hərflərlə yazılmış həmin gün Milli Qurtuluş Günü kimi qəbul edildi. Milli Məclis xalqın çoxsaylı xahiş və tələbini nəzərə alaraq bu günü bayram elan etdi.

Özünün millətsevərliyi, vətənpərvərliyi ilə fərqlənən Heydər Əliyev ilk gündən ölkədə sabitlik yaratmaq, xaosa, hərc-mərcliyə son qoymaq üçün titanik fəaliyyət göstərdi. Başqa cür də mümkün deyildi. AXC-Müsavat cütlüyü bir ilin ərzində ölkəni təkcə ictimai-siyasi cəhətdən deyil, mənəvi cəhətdən də əsl xarabazara çevirmişdi.

Heydər Əliyevin Ali Sovetin sədri seçilməsindən iki gün sonra, yəni, iyunun 17-də prezident Ə. Elçibəy heç kimə xəbər etmədən, gizlicə Bakıdan öz kəndinə – Kələkiyə getdi.

Ölkəni o dəhşətli vəziyyətdən yalnız və yalnız Heydər Əliyev kimi şəxsiyyət çıxara bilərdi. Bu böyük şəxsiyyətin apardığı uğurlu daxili və xarici siyasətin nəticəsində Azərbaycan məhv olmaq, parçalanmaq təhlükəsindən xilas oldu. Az vaxt içərisində Azərbaycanda hakimiyyət böhranı aradan qaldırıldı, vətəndaş müharibəsinə son qoyuldu, seperatçılıq meyillərinin, dövlət çevrilişlərinə cəhdlərin qarşısı alındı.

Bu böyük insanın yorulmaz səyi nəticəsində azad, müstəqil, müasir Azərbaycan Respublikası yaradıldı. Müasir Azərbaycan Respublikasının memarı xalqın ümummilli lideri Heydər Əliyev olmuşdur. Titanik işləri görməkdə isə Heydər Əliyevin daim güvəndiyi Azərbaycan xalqı idi. Ulu öndər bütün varlığı ilə xalqa bağlı olduğu kimi, xalq da dahi oğlunu əvəzsiz bir məhəbbətlə sevirdi.

Azərbaycan Respublikasının əbədiliyinə, gələcəyinə inanan böyük azərbaycanlı Heydər Əliyev deyirdi: "Respublikamızda hüquqi dövlət qurulması demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığının, söz, vicdan azadlığının, müasir plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması bizim əvvəldən qəbul etdiyimiz prinsiplərdir."

Hazırda Azərbaycan dünyanın inkişaf etmiş ölkələri ilə bir sırada addımlayır. Müstəqillik illərində ölkəmizin, xalqımızın qazandığı iqtisadi-siyasi, mənəvi nailiyyətlər dünyanın ən nüfuzlu dövlət və ictimai-siyasi xadimləri ilə adı birgə çəkilən Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyev cismən bizimlə olmasa da, mənən bizimlədir, xalqımızladır, vətənimizlədir. Həmişə də belə olacaqdır.

Belə bir kəlam var: Müdrüklərin işlərini müdrüklər davam etdirməlidirlər. Bunu Azərbaycanın timsalında görmək olar. Belə ki, böyük Heydər Əliyevin iqtisadi-siyasi kursunu inamla, uğurla həyata keçirən müasir dünyanın nüfuzlu dövlət başçılarından biri olan hörmətli Prezident İlham Əliyev göstərdi ki, dövlət sükanı etibarlı əllərdədir.

"**Azərbaycan**".-2010.-11 iyun.-N 125.-S.3.

# AZƏRBAYCANIN DİNAMİK İNKİŞAFINA HƏSR OLUNMUŞ ÖMÜR YOLU

**Qüdrət KƏRİMOV,**
"Xəzər" Səhmdar Cəmiyyətinin sədri,
iqtisad elmləri doktoru

**Tarixə öz möhürünü vurmuş böyük şəxsiyyətlər mütərəqqi ideyalar ilə cəmiyyətin həmrəyliyinə, bütövlüyünə və mənəvi birliyinə nail olmuşlar. Xalqların tarixən formalaşan maraq və mənafeyini maksimum dərəcədə özündə ehtiva edən ideyalar, eyni zamanda onların perspektiv milli inkişafı üçün möhkəm bünövrəyə çevrilmişdir. Həqiqi azadlığa zəmin yaradan iqtisadi müstəqillik də məhz belə fenomen şəxsiyyətlərin milli resursları nəzərə almaqla müəyyənləşdirdikləri inkişaf strategiyasına əsaslanmışdır.**

Bu gün istisnasız olaraq bir həqiqət aksiom kimi qəbul olunur ki, müstəqil Azərbaycanın qısa müddətdə sosial-iqtisadi sahədə qazandığı böyük uğurlar ümummilli lider Heydər Əliyevin hələ ötən əsrin 70-80-ci illərində böyük müdrikliklə formalaşdırdığı iqtisadi resurslardan, sənaye və istehsal potensialından qaynaqlanır. 1969-cu ilin 14 iyulunda Azərbaycan KP MK-nın birinci katibi seçilən Heydər Əliyev respublikanın keçmiş İttifaq miqyasında geridə qalmış respublikalardan biri kimi tanınması ilə barışmayaraq mövcud vəziyyətin kökündən dəyişdirilməsi üçün qətiyyətli addımlar atmış, mövcud resursları səfərbər etməklə tərəqqi və inkişaf prosesindəki maneələrin aradan qaldırılmasına çalışmış və nəticədə buna nail olmuşdur. Heydər Əliyev respublikanın sosial-iqtisadi cəhətdən geridə qalmasının səbəblərini ilk gündən dəqiqliklə müəyyən etmiş, geniş xalq kütlələrini səfərbərliyə almaqla mövcud nöqsanların, çatışmazlıqların həllinə, ilkin mərhələdən respublikanın siyasi rəhbərliyinin birliyinə, monolitliyinə nail olmaqla yanaşı, kadrların milliləşdirilməsinə, azərbaycanlıların, xüsusilə gənc kadrların bütün sahələr üzrə vəzifəyə irəli çəkilməsinə çalışmışdır. Dövlət strukturlarında azərbaycanlıların xüsusi çəkisinin artmasını təmin etmiş, onların yüksək idarəçilik keyfiyyətləri əxz etməsi üçün zəruri tədbirlər həyata keçirmişdir.

İctimai-iqtisadi həyatın yeniləşdirilməsi üçün ən müxtəlif sahələrdə kardinal islahatları təmin edən ulu öndər 60-cı illərin sonunda bir sıra iqtisadi göstəricilərinə görə keçmiş İttifaq miqyasında son sıralarda dayanan Azərbaycanı qısa müddətdə öncül mövqelərə çıxarmağa müvəffəq olmuşdur. Sənayedə, kənd təsərrüfatında tətbiq olunan səmərəli idarəçilik mexanizmlərinin nəticəsi olaraq 70-80-ci illərdə ictimai məhsulun və milli gəlirin həcmi ayrılıqda 2,1 dəfə, o cümlədən, sənaye istehsalının həcmi 2,2 dəfə, əmək məhsuldarlığı 67 faiz artmışdır. Təkcə 1971-1975-ci illərdə Azərbaycan iqtisadiyyatının bütün sahələrində məcmu ictimai məhsul 44, milli gəlirin ümumi həcmi 39 faiz artmış, sənayedə məhsul artımının 76 faizi əmək məhsuldarlığının yüksəlməsi hesabına əldə edilmişdir.

Həmin illərdə milli iqtisadiyyatda neft sənayesinin prioritet rolunu müdrikliklə nəzərə alan Heydər Əliyev bu sahənin dinamik inkişafına da xüsusi diqqət yetirmiş, neft-kimya sənayesinin tamamilə modernləşdirilməsinə nail olmuşdur. 70-ci illərin əvvəllərindən etibarən neft sənayesinin inkişafında yeni mərhələ başlamış, bu zəngin milli sərvətin Azərbaycanın rifahına xidmət edən vasitəyə çevrilməsi prosesinin əsası qoyulmuşdur. O zaman respublikanın neft maşınqayırması keçmiş İttifaqın neft-mədən avadanlığının üçdə birindən çoxunu, neftçıxarma texnikasının isə 70 faizini istehsal edirdi. Həmin illərdə İttifaq miqyasında yeni yataqların kəşfiyyatı, işlənməsi, mütərəqqi texnologiyalardan və üsullardan neft və qaz quyularının qazılması və istismarı sahələrindəki əsas yeniliklər də Azərbaycanın payına düşürdü. Heydər Əliyevin təşəbbüsü və əzmkarlığı sayəsində ölkədə neft sənayesi konsepsiyasının nəzəri inkişafını təmin edən elmi-tədqiqat institutları, istehsalat birlikləri və digər müəssisələr yaradılmışdır. Geoloji-kəşfiyyat işlərinin səmərəliliyinin artması nəticəsində 8 yeni yataq kəşf edilmiş, sənaye istehsalı artımı neftçıxarmada və qaz sektorunda dəfələrlə çoxalmışdı.

Ulu öndərin müəllifliyi ilə tərtib olunan "Azərbaycanda neftayırma sənayesinin yenidən qurulması" planı əsasında bu tipli müəssisələrin, iri komplekslərin tikilməsi və yeni fəaliyyət prinsiplərinə keçməsi prosesi sürətlə başa çatdı. Həmin illərdə yaradılan neft donanmasının tərkibində təchizat gəmiləri, borudüzənlər, üzən xüsusi seysmik tədqiqat və axtarış qurğuları var idi. Azərbaycan məhz Heydər Əliyevin fədakarlığı nəticəsində keçmiş SSRİ-də neft hasilatı, emalı sahəsində aparıcı respublikalardan idi və bu töhfələr bilavasitə ölkəmizin inkişafına yönəldilirdi.

Ümumiyyətlə, Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə Azərbaycanda istehsalın ümumi həcmi 2,7 dəfə artmış, respublikamız milli gəlirin səviyyəsinə görə İttifaq miqyasında ön mövqelərə çıxmış, əmək məhsuldarlığı 1,8 dəfə yüksəlmişdir. Heydər Əliyevin 1982-ci ildən sonra siyasi fəaliyyəti Kremlə

bağlansa da, müdrik rəhbər xalqına və respublikasına maksimum dərəcədə diqqət və qayğı ilə yanaşırdı. Bununla belə, 80-ci illərin ikinci yarısında keçmiş SSRİ-də müşahidə olunan iqtisadi böhran respublikadan da yan keçməmiş, milli iqtisadiyyatda durğunluq və geriləmə meyilləri özünü göstərmişdir. 1986-cı ildə ümumi milli gəlirin səviyyəsi 1985-ci ilə nisbətən 101,6 faiz olmuşdu ki, bu da Azərbaycan üçün son 10 ildə ən aşağı artım tempi idi. Bu, yeni istehsal güclərinin vaxtında işə salınmaması, hasilat sənayesində kəskin azalma ilə əlaqədar idi. Respublikanı idarə edən o vaxtkı rəhbərlər ümumi milli gəlirin səviyyəsinin artım tempinin aşağı düşməsindən nəticə çıxarmırdılar. Xüsusən də 1990-1993-cü illərdə obyektiv və subyektiv səbəblər üzündən iqtisadiyyatında tənəzzül, böhranlar və əks proseslərin genişlənməsi, idarəetmədə səriştəsiz və bacarıqsız adamlara geniş meydan verilməsi az qala Azərbaycanın dövlət kimi süqutuna səbəb olacaqdı…

Xalqın ən ağır günlərində – 1993-cü ilin iyununda hakimiyyətə qayıdan Heydər Əliyev yorulmaq bilmədən, qətiyyətlə Azərbaycanın başı üstünü almış vətəndaş müharibəsi alovunu söndürmüş, ölkədə baş alıb gedən qanunsuz silahlı dəstələrin zərərsizləşdirilməsinə, ictimai-siyasi sabitliyin tam bərpasına, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsinə, cəbhə bölgəsində atəşkəs rejiminə nail olmuş, habelə demokratik inkişaf kursu ilə uzlaşan sosial-iqtisadi siyasət strategiyasını irəli sürmüşdür. Ulu öndər bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə respublikanın qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə, dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla çıxmış, müsbət nəticələri sübut olunmuş inkişaf kursunun Azərbaycan gerçəkliyinə adekvat modelini yaratmışdır. Heydər Əliyev qısa zamanda özəl mülkiyyətçiliyə, sahibkarlığa, sərbəst rəqabətə meydan açan, dövlətsizləşdirməni özündə ehtiva edən, sosialyönümlü mahiyyət daşıyan, habelə xarici iqtisadi əlaqələrin gücləndirilməsi və münbit biznes mühitinin formalaşdırılması yolu ilə ölkəyə investisiya axınını stimullaşdıran liberal inkişaf modelinin praktik surətdə gerçəkləşdirilməsinə nail olmuşdur. “Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat prinsiplərinin bərqərar olması, bazar iqtisadiyyatı və sahibkarlığın inkişafıdır” deyən Heydər Əliyev demokratik düşüncə və həyat tərzinin bütün dünyada diktə etdiyi bu meyarlara hər zaman sadiqlik göstərmiş, milli inkişaf naminə bu yolun alternativsizliyi fikrinin ictimai rəyə aşılanmasına nail olmuşdur. Ümummilli lider mərkəzi planlaşdırma və bölgü sistemindən sərbəst bazar münasibətlərinə əsaslanan iqtisadi modelə keçid prosesinin aztəminatlı təbəqənin maraqlarına toxunmaması üçün dövlət büdcəsində sosial müdafiə tədbirlərinə geniş yer ayrılmasını da təmin etmişdir.

Həmin dövrdə respublikanın məhdud maliyyə imkanları və zəif büdcəsi ilə qarşıya qoyulmuş strateji məqsədlərin yaxın gələcəkdə reallaşdırılmasının qeyri-mümkünlüyünü nəzərə alan, sosial-iqtisadi inkişaf prosesində xarici kapital və sərmayə amilinin təkanverici rolunu düzgün olaraq önə çəkən Heydər Əliyev xarici şirkətlərlə Xəzərin Azərbaycan sektorundakı zəngin neft ehtiyatlarının mənimsənilməsini nəzərdə tutan müqavilələrin imzalanmasına da vacib məsələ kimi yanaşmışdır. İqtisadi inkişafın sürətləndirilməsinin, səmərəli sosial-iqtisadi islahatlar aparılmasının, investisiya layihələrinin həyata keçirilməsinin ümdə şərti kimi müstəqil Azərbaycanın yeni neft strategiyası işlənib hazırlanmış, mərhələlərlə həyata keçirilmişdir.

Qloballaşma prosesinin geniş vüsət aldığı bir dövrdə – XX əsrin sonunda Azərbaycanda iqtisadiyyatın dörd vacib seqmentinin – yanacaq-energetika ehtiyatlarının, nəqliyyat-kommunikasiya sisteminin, kənd təsərrüfatı və onunla bağlı sənaye kompleksinin, regionların istifadə olunmamış əmək və iqtisadi imkanlarının maksimum dərəcədə iqtisadi dövriyyəyə cəlb olunması hökumətin strateji məqsədi hesab edilmişdir. Ümummilli lider Heydər Əliyev respublika iqtisadiyyatındakı tənəzzül prosesinin və hiperinflyasiyanın qarşısını almaq, makroiqtisadi sabitliyə nail olmaq üçün ilkin mərhələdə sərt büdcə-kredit siyasətinə üstünlük vermiş, hökumətin çevikliyini, işləkliyini təmin etmək üçün yeni dövrün tələblərinə uyğun struktur islahatlarına start vermiş, habelə özəlləşdirmənin birinci mərhələsinin həyata keçirilməsi istiqamətində qətiyyətli qərarlar qəbul etmişdir.

Özəlləşdirmə prosesi ilə paralel respublikamızda həyata keçirilən struktur islahatları Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafına, o cümlədən yerli və xarici investisiyalar, müasir texnologiyalar, idarəetmə təcrübəsi cəlb etməklə, rəqabət qabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan vermişdir. Ümummilli lider respublika iqtisadiyyatının keyfiyyətcə yeni mərhələsində məhz özəl sektoru sosial-iqtisadi inkişafın başlıca təminatçısı kimi dəyərləndirmiş, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışmışdır. 1997-2003-cü illərdə respublikada sahibkarlığın inkişafı üçün zəruri maliyyə təminatı yaradılmış, süni maneələrin aradan qaldırılması üçün mükəmməl qanunvericilik bazası formalaşdırılmış, fəaliyyətin bu növü ilə məşğul olanların hərtərəfli stimullaşdırılması məsələsi diqqət mərkəzində saxlanılmışdır. İnvestisiyaların təşviqi üçün respublikada daha münbit şərait yaratmaq, daxili və xarici sərmayəni stimullaşdıran səmərəli metodlardan istifadə etmək, xarici kapital qoyuluşunun başlıca

istiqamətini regionların, qeyri-neft sektorunun inkişafına yönəltmək, habelə maddiləşən işgüzar fəallığı gücləndirmək üçün kompleks tədbirlər həyata keçirilmişdir.

Respublikamızda özəl sektorun dinamik inkişafı həm də dövlətlə münasibətlərin sivil və işgüzar, qarşılıqlı faydalı xarakteri ilə şərtlənmişdir. Heydər Əliyev iş adamlarının hamisi kimi çıxış edərək bu təbəqənin milli iqtisadiyyatın "lokomotiv" qüvvəsinə çevrilməsinə çalışmış, mövcud problemlərin aşkarlanması məqsədilə dövlət-sahibkar dialoqunun genişləndirilməsində maraqlı olmuşdur.

Əsası Heydər Əliyev tərəfindən qoyulmuş mütərəqqi islahatları 2003-cü ilin oktyabrından bütün sahələrdə inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev respublikamızı sürətli tərəqqi yoluna çıxarmış, onun davamlı və tarazlı inkişafını təmin etmişdir. Son 6 il yarımda respublikamızda həyata keçirilən siyasət ilk növbədə ölkədəki ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsinə, Azərbaycanın demokratik və sosial-iqtisadi inkişafı məqsədinə yönəlmişdir. Cənab İlham Əliyev yürütdüyü siyasətin gerçəkliyə adekvat olduğunu əməli işi ilə sübuta yetirərək formalaşdırdığı işlək mexanizmlər əsasında islahatların davamlılığını, ardıcıllığını təmin etmiş, ölkə həyatında yeni intibah mərhələsinin başlanmasına nail olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev səlahiyyətlərinin icrasına başladığı ilk günlərdən iqtisadiyyatın birqütblü inkişafını yolverilməz sayaraq respublikanın neft gəlirlərindən asılılığının aradan qaldırılmasına – qeyri-neft sektorunun, istehsal sahibkarlığının inkişafına xüsusi diqqətlə yanaşmış, regionların tarazlı və davamlı inkişafı, tarixi məşğulluq ənənələrinin bərpası istiqamətində ardıcıl tədbirlər sistemi həyata keçirmişdir. Bu siyasət neftdən asılılığı azaltmaqla ölkədəki dinamik iqtisadi inkişaf tempini sabit saxlamağa imkan verən fundamental əsasların yaradılmasını nəzərdə tutur. "Biz öz siyasətimizi elə aparmalıyıq ki, guya Azərbaycanda neft yoxdur. İqtisadiyyatın bütün sahələrində və ilk növbədə qeyri-neft sektorunda mövcud strukturlar inkişaf etdirilməlidir. Biz yalnız bu yolla Azərbaycanı hərtərəfli inkişaf etmiş dövlətə çevirə bilərik" deyən dövlət başçısı neft gəlirlərini digər strateji sahələrə yönəltməklə qeyri-neft sektorunun – sənayenin inkişafına, infrastrukturun müasirləşməsinə, davamlı tərəqqiyə zəmin yaradan investisiya layihələrinin gerçəkləşməsinə xüsusi diqqətlə yanaşmışdır.

Qeyri-neft sektorunun tərəqqisi ilk növbədə özəl sektorun, sahibkarlığın inkişafından keçir. Təsadüfi deyil ki, hələ 2004-cü il fevralın 1-də yerli sahibkarlarla görüşən dövlət başçısı İlham Əliyev onların fəaliyyətinə hər cür təşkilati dəstəyin göstəriləcəyini, qanunvericiliyin təkmilləşdiriləcəyini, maliyyə-kredit təminatının yaxşılaşdırılacağını bəyan etmişdir. Ötən müddətdə kiçik və iri sahibkarlara dövlət büdcəsindən ayrılan vəsaitlərin həcminin ildən-ilə artırılması, iş adamlarının fəaliyyətinə süni müdaxilələrin aradan qaldırılması, antiinhisar və korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi, biznes subyektlərinin qeydiyyatı və lisenziya sisteminin sadələşdirilərək "vahid pəncərə" prinsipi əsasında aparılması, yerlərdə regional iqtisad məhkəmələrinin formalaşdırılması, azad iqtisadi zonaların yaradılmasını nəzərdə tutan xüsusi fərmanın və qanunun imzalanması və s. tədbirlər iş adamları tərəfindən də razılıqla qarşılanmışdır. Kənd təsərrüfatı sahəsində çalışan fermerlərin lazımi texnika, gübrə və toxum məhsulları ilə təmin edilməsinə kömək məqsədilə "Aqrolizinq" Səhmdar Cəmiyyətinin yaradılması, onların gəlir vergisindən azad edilməsi, güzəştli şərtlərlə yanacaq və motor yağları ilə təmini də sahibkarlığa göstərilən qayğının mühüm tərkib hissəsi kimi xüsusi qeyd edilməlidir.

Bazar iqtisadiyyatının tələblərinə uyğun funksional idarəetmə mexanizmlərinin formalaşdırılması, liberal iqtisadi münasibətlərin inkişaf etdirilməsi və dövlət strukturlarının iqtisadi fəaliyyət sahələrinə nəzarətin təkmilləşdirilməsi nəticəsində son 6 ildə azad bazar prinsiplərinin daha geniş vüsət alması özəl sektorun inkişafına təkan vermiş, iş adamlarının fəaliyyətini stimullaşdırmışdır. Bu tədbirlərin mahiyyəti və konseptual məzmunu iqtisadiyyatın liberallaşdırılması və sərbəst bazar prinsiplərinin dərinləşdirilməsindən ibarət olmuş, nəticədə milli sahibkarların ümumi daxili məhsuldakı xüsusi çəkisi 85 faizə çatmışdır.

Ümumilikdə ölkədə həyata keçirilən liberal iqtisadi siyasət makroiqtisadi və maliyyə sabitliyinin qorunmasının təmin edilməsi, dayanıqlı iqtisadi artımın və iqtisadiyyatın modernləşməsinə dəstək verən siyasətin dərinləşdirilməsi, qeyri-neft sektorunun aparıcı sahəyə çevrilməsi, məşğulluq səviyyəsinin artırılması kimi nəzərəçarpacaq nəticələrlə yadda qalmışdır. Respublikanın əldə etdiyi uğurlar dünyanın ən nəhəng reytinq təşkilatları və maliyyə institutlarının hesabatlarında da əksini tapmışdır. Azərbaycanın adı son illərdə maliyyə təşkilatlarının qiymətləndirmələrində islahatçı və pozitiv dəyişikliklərə nail olan dövlətlər sırasında çəkilir.

Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdir ki, sənayeləşmənin strukturca yeni dövrün tələbələrinə uyğun formalaşması iqtisadiyyatın gələcək maliyyə təminatında xüsusi rol oynayacaqdır. Hazırda respublikanın iqtisadi siyasətində yeni sənaye müəssisələrinin yaradılması başlıca xəttə çevrilmişdir. Azərbaycanda ümumi daxili məhsulun tərkibində əsas yer sənaye məhsullarının payına düşür. Prezident İlham Əliyev bu sahədə həyata keçirilən dövlət siyasətini vahid mərkəzdən tənzimləmək, respublikanın investisiya cəlbediciliyinin daha da artırılmasını təmin etmək məqsədilə hələ 2006-cı ildə Dövlət İnvestisiya Şirkətinin yaradılmasına qərar

vermişdir. Şirkətin başlıca vəzifəsi ölkə iqtisadiyyatına investisiyaların təşviqini təmin etmək, bu sahədə mövcud problemlərin aradan qaldırılmasına çalışmaqdır. Şirkət, eyni zamanda, xarici sərmayədarlarla birgə layihələr həyata keçirməklə, onlarda inam və etimadın güclənməsini təmin edir.

Sənaye potensialının gücləndirilməsi dedikdə, söhbət əsla keçmiş İttifaq dövründə olduğu kimi, dövlətin nəzarətində olan strateji müəssisələrin yaradılmasından getmir. Prezident İlham Əliyev dövlətin bu sahədəki siyasətini, sadəcə, sahibkarlığa kömək tədbirlərinin davamı hesab edir və perspektivli, iqtisadi nöqteyi-nəzərdən səmərəli sənaye kompleksinin formalaşmasına çalışır. Cənab İlham Əliyev hesab edir ki, hökumət öz tərəfindən bu cür müəssisələrin normal fəaliyyətinə, habelə xarici sərmayədarlarla birgə qlobal layihələr həyata keçirməsinə etibarlı təminat mexanizmləri yarada bilər. Burada söhbət həm də sahibkarlıq fəaliyyətinin daha da stimullaşdırılması baxımından ölkədə həyata keçirilən səmərəli tədbirlərdən gedir…

Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin ciddi vəzifə kimi qarşımıza qoyduğu güclü sənaye kompleksinin yaradılması məqsədinə xidmət etməklə yanaşı, eyni zamanda, regionların inkişafına, qeyri-neft sektorunun, idxalı əvəz edən ixracyönümlü məhsul istehsalının, sahibkarlığın və xarici iqtisadi əlaqələrin daha da genişlənməsinə, məşğulluğun artırılmasına, yoxsulluğun azaldılmasına, habelə elmi sahədə çalışacaq intellektual cəhətdən inkişaf etmiş insan faktorunun formalaşmasına yönəlmiş tədbirlərdir.

**“Xalq qəzeti“**.-2010.-12 iyun.-N 126.-S.5.

# HEYDƏR ƏLİYEVİN İNKİŞAF STRATEGİYASI VƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASI (XX əsrin 70-80-ci illəri)

**Ədalət QASIMOV,**
tarix elmləri namizədi

Azərbaycanımızın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası öz tarixi ərzində mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Tarixən Şərqin iri elm və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələri ilə yanaşı, Azərbaycan dövlətçiliyinin inkişafına da uğurlu fəaliyyətini təqdim etmişdir.

Lakin Azərbaycanın, onun bütün regionlarının, habelə Naxçıvanın da həqiqi inkişafı və tərəqqisi ulu öndər Heydər Əliyevin 1969-cu ildə siyasi hakimiyyətə gəlişi ilə başlanmışdır. Mübaliğəsiz demək olar ki, xalqımızın son yarıməsrlik tərəqqi dövrü məhz böyük öndərimizin həyatı və fəaliyyəti ilə bağlı olmuşdur.

1970-ci ilə qədər iqtisadi, sosial və mədəni inkişafın əksər göstəricilərinə görə Azərbaycan keçmiş SSRİ-nin müttəfiq respublikaları arasında axırıncı yerlərdən birini tuturdu. 1960-1970-ci illərdə SSRİ-də milli gəlir istehsalı 99 faiz artdığı halda, respublikada 66 faiz artmışdı [10, s. 41]. Milli gəlirin adambaşına düşən həcmi də başqa respublikalarla müqayisədə ilbəil azalırdı. Mərkəzin Azərbaycanın problemlərinə diqqət və qayğı göstərməməsi, respublikada idarəetmə sahəsində ciddi nöqsanların olması nəticəsində ictimai, iqtisadi, mənəvi həyatda böhran yaşanırdı.

Mərkəzin və respublika hakimiyyət orqanlarının Naxçıvan MR-ə laqeyd, ögey münasibəti nəticəsində 1970-ci illərə qədər muxtar respublika Azərbaycanın digər bölgələrinə, xüsusən Dağlıq Qarabağ Muxtar Vilayətinə nisbətən aşağı inkişaf səviyyəsinə malik olmuş, sənaye məhsulunun artım sürətinə görə keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı yerlərdə qərar tutmuşdu.

Naxçıvan MR-də sənayenin, kənd təsərrüfatının inkişafında, məhsuldar qüvvələrin yerləşdirilməsində çox ciddi nöqsanlar var idi.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə Azərbaycanın və Naxçıvanın həyatında təzahür edən mənfi proseslərin qarşısı qətiyyətlə alındı, ölkəmiz əsl tərəqqi yoluna qədəm qoydu.

Qısa müddət ərzində hazırlanmış və həyata keçirilmiş strateji kurs uzun müddətli geriliyə son qoymuş, respublika həyatının bütün sahələrində sabit və dinamik artım əldə edilmişdi.

1969-cu ildən sonra Azərbaycan rəhbərliyinin həyata keçirdiyi kompleks tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikasının sənaye, kənd təsərrüfatı, istehsal infrastrukturunun yüksək inkişafı baş verdi. Sənayenin emal və istehsal sahələrinin şəbəkəsi genişləndi.

Ulu öndər Heydər Əliyev Naxçıvanın iqtisadi inkişafına, regionun sənaye potensialının artırılmasına mühüm geosiyasi məsələ kimi baxaraq strateji obyektlərin yerləşdirilməsi üçün xüsusi proqramlar və planların hazırlanıb həyata keçirilməsinə nail olmuşdu. Nəticədə təkcə 70-ci illərin ilk dörd ili ərzində muxtar respublikada sənayenin inkişaf sürəti 25,5 faiz artmış, 1973-cü ildə sənaye məhsulunun 80 faizdən çoxu əmək məhsuldarlığının artması hesabına əldə edilmişdi [1, v. 111].

Naxçıvan MR-in iqtisadi inkişafında Heydər Əliyevin birbaşa göstərişi və rəhbərliyi əsasında hazırlanmış Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin “Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında” 8 yanvar 1974-cü il tarixli birgə qərarının mühüm rolu oldu [2, v. 187-201].

Qərarda Naxçıvan MR-də iqtisadiyyatın və mədəniyyətin Azərbaycanın və respublikanın digər regionlarının orta inkişaf göstəricilərindən aşağı olduğu prinsipial şəkildə açıq qeyd edilmiş və bu geriliyin əsas səbəbləri göstərilmişdi. Etiraf edilmişdi ki, Naxçıvan MR-in geridə qalmasının əsas səbəbi Azərbaycanın əksər nazirlik və idarələrinin muxtar respublikanın problemlərinə ögey münasibət bəsləmələri olmuşdur.

Qərarda muxtar respublikanın sosial-iqtisadi, mədəni inkişafının təmin edilməsi üçün müvafiq orqanlar qarşısında konkret vəzifələr qoyulmuş, onların icra müddəti müəyyənləşdirilmişdi. Heydər Əliyev bu qərarın yerinə yetirilməsinə şəxsən nəzarət edirdi. Məhz onun şəxsi tələbkarlığı və diqqəti sayəsində qərarda nəzərdə tutulmuş bütün vəzifələr vaxtında yerinə yetirilmişdi. Bu qərar Heydər Əliyevin muxtar respublikanın inkişafına, naxçıvanlıların həyat səviyyəsinin artırılmasına göstərdiyi əsl atalıq qayğısı idi.

Naxçıvan Muxtar Respublikasının mövcud sosial-iqtisadi problemlərinin, onların həlli yollarının müəyyənləşdirilməsində, bölgənin gələcək inkişaf perspektivlərinin üzə çıxarılmasında Heydər Əliyevin Naxçıvan Vilayət Partiya Komitəsinin XXX konfransındakı nitqi mühüm rol oynadı. Azərbaycanda iqtisadiyyata rəhbərliyin, ideoloji işin gücləndirilməsi, kadrların məsuliyyətinin artırılması sahəsində aparılan tədbirlərin, mənfi hallara qarşı mübarizə ruhunun Naxçıvanda hiss olunmadığını açıq bəyan edən Heydər Əliyev

muxtar respublikanın rəhbərliyinin fəaliyyətini ciddi tənqid etmiş, ondan iş üslubunu və metodlarını dəyişdirməyi qətiyyətlə tələb etmişdi. Həmin çıxışında Heydər Əliyev muxtar respublikanın ehtiyaclarına diqqət yetirməyi və problemləri qısa müddətdə həll etməyi bir dövlət vəzifəsi kimi Azərbaycanın nazirlik və idarələrinin qarşısında qoydu (7, v. 105 ].

Heydər Əliyev Naxçıvan MR-in təbii ehtiyatlarından səmərəli istifadə etmək, regionda tikinti materialları sənayesini inkişaf etdirmək məqsədilə bir sıra mühüm qərarların qəbul olunmasına nail olmuşdu. Onun şəxsi təşəbbüsü ilə 1970-1980-ci illərdə Naxçıvan MR-də dəmir-beton məmulatları zavodu, şüşə tara zavodu, evtikmə kombinatı, travertin bloklar karxanası tikilib istifadəyə verildi. Nəticədə, ümumi məhsul istehsalında tikinti materiallarının xüsusi çəkisi bir neçə dəfə artdı, muxtar respublikada istehsal olunan mərmər, üzlük plitə, travertin və s. tikinti materiallarının ixracı xeyli genişləndi. Heydər Əliyev Naxçıvan MR-də üzlük materialların istehsalmı genişləndirmək məqsədilə Azərbaycan KP MK və respublika Nazirlər Sovetinin "Naxçıvan MSSR-də üzlük materialların istehsalının daha da inkişaf etdirilməsi tədbirləri haqqında" 19 fevral 1982-ci il tarixli qərarının qəbul etdirilməsinə nail oldu [4, v. 90-95]. Lakin sonrakı ictimai-siyasi hadisələr bu kimi iqtisadi tədbirləri həyata keçirməyə imkan vermədi.

Heydər Əliyev Naxçıvanda elmi-texniki tərəqqini müəyyən edən sahələrin sürətlə inkişaf etdirilməsi üçün bütün imkanlardan istifadə edirdi. Artıq 1980-ci ildə bu sahənin payına muxtar respublika sənayesində məşğul olanların 14,2 faizi, ümumi məhsulun isə 7,3 faizi düşürdü [6, v. 53 ].

Heydər Əliyevin Naxçıvan MR-in elektrik enerjisinə tələbatının tam təmin edilməsi üçün atdığı addımlar muxtar respublikanın gələcək taleyində mühüm rol oynayan amilə çevrildi. 1990-cı illərin əvvəllərində Naxçıvan Ermənistan tərəfindən enerji blokadasına alınarkən muxtar respublika əhalisi məhz ulu öndərin 70-ci illərdə yaratdığı enerji mənbələri hesabına həyat ritmini itirmək təhlükəsindən xilas oldu.

Ulu öndərimiz Naxçıvan MSSR-də sənaye müəssisələrinin proporsional yerləşdirilməsi, yüngül və yeyinti sənayelərinin inkişafına xüsusi diqqət yetirirdi. Onun təşəbbüsü ilə 70-ci illərdə Naxçıvan şəhərində yeni yüngül sənaye müəssisələri yaradıldı, mövcud müəssisələr genişləndirilərək texniki bazası müasirləşdirildi. O, yüngül sənaye müəssisələrinin tikintisi ilə şəxsən maraqlanır, tikintilərin gedişmi daim nəzarətdə saxlayırdı. Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında yeyinti sənayesinin inkişafına dövlət qayğısı regionda onlarca yeyinti sənaye müəssisəsinin işə salınmasında özünü göstərirdi. O çalışırdı ki, muxtar respublika əhalisinin ərzaqla təmin edilməsi, əsasən yerli ehtiyatlar və mənbələr sayəsində həyata keçirilsin. Əgər 1970-ci ildə muxtar respublikada istehsal olunan sənaye məhsulunun yalnız 36,6 faizi bu sahənin payına düşürdüsə, 1980-ci ildə bu rəqəm artıq 77,5 faiz təşkil etmişdi. Yeyinti sənayesində məşğul olanların sayı 4,3 faiz artmışdı ki, bu da sənayenin sürətli inkişafından irəli gəlirdi [6, s. 52].

Naxçıvan MR-də şərabçılıq sənayesinin sürətli inkişafı da Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır. Əgər 1970-ci ildə yeyinti sənayesi məhsulunun 47,5 faizi bu sahənin payına düşürdüsə, 1982-ci ildə bu rəqəm 63 faizə çatdırılmışdı.

Ulu öndər Heydər Əliyevin sayəsində Naxçıvan MR-də yerli sənaye sahəsi də təşəkkül tapmağa başlamış, iri yerli sənaye müəssisələri tikilərək istifadəyə verilmişdi. Bu isə öz növbəsində mövcud əmək ehtiyatlarından daha səmərəli istifadə etməyə imkan yaratmışdı.

Aparılan kompleks tədbirlər sayəsində 1970-1982-ci illərdə muxtar respublikanın sənaye potensialı təxminən üç dəfə artmışdı. Onuncu beşillikdə (1976-1981-ci illərdə) muxtar respublika sənayesi xüsusilə sürətlə inkişaf etməyə başlamışdı. Təkcə onu qeyd etmək lazımdır ki, onuncu beşillikdə istehsal olunmuş məhsulun həcmi üst-üstə yeddinci, səkkizinci və doqquzuncu beşilliklərdə istehsal olunan məhsula bərabər olmuşdur. Təkcə 1980-ci ildə istehsal olunan məhsulun həcmi 1975-ci ilə nisbətən 1,2 dəfə, 1969-cu ilə nisbətən isə 3,5 dəfə çox idi. 1971-1981-ci illərdə muxtar respublikada iqtisadiyyatın inkişafına 357,4 milyon manat əsaslı vəsait yönəldilmişdi ki, bu da üst-üstə altıncı, yeddinci və səkkizinci beşilliklərdəki əsaslı vəsaitin ümumi həcmindən 1,4 dəfə çox idi [9]. Bütövlükdə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə Naxçıvanda sənayenin kompleks inkişafı və əmək məhsuldarlığının artırılması istiqamətində çox ciddi işlər görülmüş, yüngül və yeyinti sənaye sahələri ilə yanaşı, yeni sənaye istehsalı (energetika, dağ-mədən, maşınqayırma, metal, yerli sənaye və s.) yaradılmışdı. İqtisadiyyatın xüsusi çəkisində sənayenin payı dəfələrlə artmış, onun strukturunda mühüm dəyişikliklər baş vermişdi.

Həmin illərdə 970129 min manat həcmində sənaye məhsulu istehsal edilmiş [9], 1970-ci illə müqayisədə 1980-ci ildə ümumi məhsulun istehsalı 261 faiz artmışdı. 1971-1980-ci illərdə sənaye istehsalının orta illik həcmi 7,9 faiz olmuşdu [12, s. 11].

Azərbaycan rəhbərliyinin diqqəti sayəsində 70-80-ci illərdə Naxçıvan MR-də nəqliyyatın və rabitənin inkişafında da mühüm nəticələr əldə edilmişdi.

Hakimiyyətə gəldiyi ilk gündən Heydər Əliyev Azərbaycanda əsaslı tikintinin inkişafı məsələsinə xüsusi diqqət yetirməyə başlamış, Azərbaycan KP MK-nın 1971-ci ilin iyulunda keçirilmiş plenumunda əsaslı tikintinin vəziyyəti xüsusi müzakirə edilmişdi. Bu plenumda, eləcə də Naxçıvana səfərlərində Heydər Əliyev muxtar respublikada əsaslı tikinti sahəsində çox ciddi nöqsanlar olduğunu bildirmişdi. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK bürosu 1972-ci ilin oktyabrında Naxçıvan MR-də əsaslı tikintinin vəziyyəti ilə bağlı xüsusi qərar qəbul etməli olmuşdu. Heydər Əliyevin göstərişi əsasında Naxçıvan MR-də əsaslı tikintinin inkişafı ilə bağlı bir sıra proqramlar həyata keçirilmiş, yeni tikinti təşkilatları yaradılmış, onların texnika və materiallarla təminatı yaxşılaşdırılmış, əməyin mexanikləşdirilməsi, məhsuldarlığının artırılması üçün müvafiq addımlar atılmışdı. Ümumilikdə, 1971-1980-ci illərdə muxtar respublika tikinti sahəsində əmək məhsuldarlığını 77,1 faiz artırmışdı. Həmin illərdə iqtisadiyyata 370 mln. manat əsaslı kapital vəsaiti qoyulmuşdu ki, bu da 1961-1970-ci illərdəkindən 138 mln. manat çox idi [11, s. 137].

Heydər Əliyev naxçıvanlıların ehtiyacını təmin etmək üçün Naxçıvan şəhərində iri evtikmə kombinatının tikintisinə nail olmuş, bu kombinatın, eləcə də digər sənaye müəssisələrinin tikintisini sürətləndirmək üçün tikinti obyektlərinə dəfələrlə baş çəkərək inşaat işlərinin gedişi ilə şəxsən tanış olmuşdu.

1970-ci ilədək Naxçıvan MR-də kənd təsərrüfatı çox ləng inkişaf edirdi. Bu sahənin inkişaf göstəricilərinə görə muxtar respublika Azərbaycanın digər rayonlarından, xüsusilə DQMV-dən dəfələrlə geri qalırdı. Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə muxtar respublikanın bu ənənəvi istehsal sahəsində də böyük dirçəliş və tərəqqi baş verdi.

Yeni təsərrüfatçılıq üsullarının, texnika və texnologiyaların tətbiqi, nəhəng su təsərrüfatı komplekslərinin istifadəyə verilməsi sayəsində əkin sahələrinin artırılması, əkinçilik və heyvan-darlıq məhsulları istehsalına yönəlmiş digər kompleks tədbirlər nəticəsində bu sahənin inkişafında əsaslı dönüş baş verdi. Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan MR-də qeyri-rentabelli pambıqçılıq daha yüksək məhsuldarlığa malik üzümçülük və tütünçülüklə əvəz olundu. Burada kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi, mexanikləşdirilməsi, kimyalaşdırılması, torpaqların meliorasiyası sahəsində mühüm işlərin görülməsi məhz Heydər Əliyevin xidmətləri sayəsində baş verdi. Kənd təsərrüfatının sənaye üsulu ilə inkişafı da məhz onun adı ilə bağlıdır.

Heydər Əliyev muxtar respublikada kənd təsərrüfatı istehsalını yüksəltməyin mühüm amili olan su təsərrüfatının genişləndirilməsi məsələsi ilə şəxsən məşğul olur, muxtar respublikaya səfərlərində su təsərrüfatı qurğularının tikintisinə baş çəkməyi unutmurdu.

Ulu öndəri muxtar respublikada kənd təsərrüfatının geridə qalması, əhalinin ərzaq məhsulları, xüsusən meyvə, tərəvəz, ət və süd məhsulları ilə təmin edilməsində mövcud olan böyük problemlər daim narahat etdiyindən onların həlli üçün çoxşaxəli tədbirlər həyata keçirirdi. 1982-ci ilin oktyabrında Azərbaycan KP MK-nın I katibi kimi Naxçıvan MR-ə səfəri ərəfəsində də Heydər Əliyev bu problemlərin həllini birinci dərəcəli dövlət vəzifəsi kimi qarşıya qoymuşdu.

Heydər Əliyevin Naxçıvan MR-də taxılçılığın, üzümçülüyün, tərəvəzçiliyin, heyvandarlığın inkişafına diqqət və qayğısının nəticəsi idi ki. burada ümumi kənd təsərrüfatı istehsalı hər il ardıcıl şəkildə artırdı. Muxtar respublikanın kənd təsərrüfatının ümumi məhsulu 1970-ci ildəki 16.932 min manatdan 1980-ci ildə 54.389 min manata qədər, yaxud 3,2 dəfə artmışdı. Məhz onun təşkilatçılıq fəaliyyəti nəticəsində muxtar respublikanın kənd təsərrüfatı yeni inkişaf yoluna çıxmışdı.

Heydər Əliyevin ölkəyə rəhbərliyilə əhalinin rifah halı xeyli yüksəlmişdi. Həyata keçirilən məqsədəuyğun sosial siyasət nəticəsində əhalinin real gəlirləri, o cümlədən orta əmək haqqı ilbəil yüksək sürətlə artırdı, ictimai-istehlak fondlarından pul ödənişlərinin, müavinətlərin həcmi də xeyli artmışdı.

1970-80-ci illərdə Naxçıvan MR-də əhalinin mənzil şəraitinin yaxşılaşdırılması sahəsində ciddi uğurlar qazanılmışdı. Həmin illərdə muxtar respublikada ümumi sahəsi 569,1 min kvadrat metr olan yeni mənzil sahəsi tikilib istifadəyə verilmişdi. Bununla da 96 min nəfər öz mənzil şəraitinin yaxşılaşdırılmasına nail olmuşdu [5].

Ümummilli lider Azərbaycanın bütün şəhər və kəndlərinin abadlaşdırılmasını, yaşıllaşdırılmasını, müasir görkəmə malik olmasını mühüm milli vəzifə hesab edir, bütün vəzifəli şəxsilərdən bu məsələləri diqqətdə saxlamağı tələb edirdi. Onun diqqət və qayğısı sayəsində Naxçıvan şəhərinin siması xeyli dəyişmiş və gözəlləşmişdi. Onun şəxsi təşəbbüsü və səyi ilə şəhərin baş planı işlənib hazırlanmışdı. Heydər Əliyev Naxçıvan şəhərində. muxtar respublikanın digər şəhər və kəndlərində sosial obyektlərin tikintisinin genişləndirilməsini tövsiyə edir, özü bu obyektlərə baş çəkir, açılışında iştirak edirdi.

Onun rəhbərliyi dövründə Naxçıvan MR-də yeni yaşayış massivləri – mikrorayonlar salınmış, kəndlərin siması dəyişərək müasir qəsəbələrə çevrilmişdi.

Heydər Əliyevin xidmətləri sayəsində Naxçıvan MR əhalisinin içməli su, elektrik enerjisi, mavi qazla təminatının yaxşılaşdırılması istiqamətində çox mühüm addımlar atılmış, onun gərgin əməyi nəticəsində muxtar respublikaya Yevlax-Stepanakert-Naxçıvan qaz kəməri tikilmiş, bir çox yaşayış məntəqələri qazlaşdırılmışdı.

Heydər Əliyev Naxçıvanın coğrafi-siyasi şəraitini nəzərə alaraq muxtar respublikanın nəqliyyat sisteminin yaxşılaşdırılması üçün bütün imkanlardan istifadə edirdi. 70-80-ci illərdə burada yeni avtomobil yolları çəkilmiş, marşrutlar açılmış, dəmir yolu elektrikləşdirilmiş, stansiya və vağzallar təmir edilmişdi. Moskvanın təzyiqlərinə, ermənilərin maneələrinə baxmayaraq, Heydər Əliyev Naxçıvan MR-i Azərbaycanın əsas ərazisi ilə birləşdirən və Ermənistan SSR-in Mehri rayonundan keçən Zəngilan-Mehri-Ordubad yolunun insan üçün Mərkəzin razılığını ala bilmiş, hətta yolun bir hissəsi tikilmişdi [3, v. 92]. Çox təəssüf ki, ermənilərin Qarabağ oyunu Heydər Əliyevin bir sıra strateji layihələri kimi. bu layihənin də başa çatdırılmasına imkan vermədi.

Heydər Əliyevin Naxçıvan MR-ın inkişafı sahəsində ən böyük xidmətlərindən biri muxtar respublikada hava nəqliyyatının inkişaf etdirilməsi, Naxçıvan hava limanının genişləndirilməsi oldu. Bu isə öz növbəsində sonralar muxtar respublikanın gələcək taleyində mühüm rol oynayacaq amilə çevrildi. 90-cı illərin əvvəllərində ermənilər Naxçıvanı nəqliyyat blokadasına aldıqdan sonra hava nəqliyyatı muxtar respublikanı Azərbaycanla birləşdirən yeganə vasitəyə çevrildi.

Heydər Əliyev Naxçıvan MR-də əhaliyə səhiyyə xidmətinin yaxşılaşdırılmasına, idmanın inkişaf etdirilməsinə çalışmış, bu sahənin inkişafına yönəldilmiş vəsaitlərin həcminin artırılmasına səy göstərmişdir.

Onun respublikaya rəhbərlik etdiyi 1970-80-ci illərin birinci yarısında muxtar respublikada çoxlu sayda xəstəxanalar tikilmiş, səhiyyə müəssisələrinin ixtisaslı kadrlarla təminatı yaxşılaşdırılmışdı. Bu dövrdə Naxçıvan MR-də bütün ixtisaslardan olan həkimlərin sayı 2,3, orta ixtisaslı tibb işçilərinin sayı isə 1,7 dəfə çoxalmışdı [12, s. 64]. Muxtar respublikada idman qurğularının, idmanla məşğul olan insanların sayı da xeyli dərəcədə artmışdı.

Naxçıvan MR-in sosial-iqtisadi inkişafında baş verən mütərəqqi dəyişikliklər, əhalinin maddi rifah halının yaxşılaşması onun demoqrafik vəziyyətinə də müsbət təsir göstərmiş, MR-də əhalinin təbii artımı Azərbaycanın orta göstəricilərindən yüksək olmuşdu. 1980-ci ildə muxtar respublikada əhalinin sayı 2430 min nəfərə çatmışdı [12, s. 5].

70-ci illər – 80-ci illərin birinci yarısında Naxçıvan MR-in əhalisinin milli tərkibində də mütərəqqi dəyişikliklər baş vermiş, regionun qədim sakinləri azərbaycanlılar burada mütləq üstünlüyü saxlayaraq bölgənin əsl sahibinə çevrilmişdilər. Bölgəyə sonralar köçürülmüş ermənilər isə özləri üçün mədəni cəhətdən yad diyarda perspektivlər görməyərək buradan köçməyi üstün tutmuşdular.

Bütün bu dəyişikliklər isə Heydər Əliyevin regionların inkişaf strategiyasının həyata keçirilməsinin bariz nümunəsi idi. Çox təəssüf ki, 1980-ci illərin ikinci yarısında SSRİ-də başlanan "yenidənqurma", bunun ardınca Azərbaycan torpaqlarına qarşı ermənilərin təcavüzkar hərəkətləri, respublikada ictimai-siyasi vəziyyətin dəyişməsi Azərbaycanın, o cümlədən Naxçıvan MR-in sosial-iqtisadi vəziyyətinə mənfi təsir göstərdi, muxtar respublikanın iqtisadiyyatı böhran vəziyyətinə düşdü. O zaman Azərbaycan iqtidarı blokadaya salınmış Naxçıvanı ağır vəziyyətdən çıxarmaq üçün heç bir təsirli addım atmadı. Yalnız ulu öndər Heydər Əliyevin belə bır şəraitdə Naxçıvana gəlməsi və burada fəaliyyət göstərməsi bölgəni gözlənilən fəlakətlərdən qurtardı.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT**

1. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Siyasi Partiyalar və İctimai Hərəkətlər Dövlət Arxivi – ARPİİSPIHDA. f. 1, ə. 61, iş 12

2. ARPİİSPIHDA. f.l, ə. 61, iş 17

3. ARPİİSPIHDA. f. 1, ə. 64, iş 37

4. ARPİİSPIHDA. f. 1, ə. 70, iş 31

5. Əhmədov İ. Böyük tikintilər // Kommunist, 18 noyabr 1982

6. Mirzəyev T.M. Naxçıvan MSSR-in əmək ehtiyatları və onlardan səmərəli istifadə məsələləri. Bakı: Elm, 1983, 102 ə.

7. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA). f.l, ə. 3

8. NMRDA. f. 1, ə. 16, iş 79

9. Rəhimov K. 1981-ci il martın 27-də muxtar respublikada partiya fəalları yığıncağında məruzəsi // Sovet Naxçıvanı, 29 mart 1981

10. Səmədzadə Z., Musayev M. Onuncu beşillikdə Sovet Azərbaycanının iqtisadi və sosial inkişafı. Bakı: Azərnəşr, 1981, 240 s.

11. Нахчыванская АССР Азербайджанской ССР за 60 лет. Юбилейный статистический сборник. Баку: Азернешр, 1984, 179 с.

12. Нахчыванская АССР в цифрах. Статистический сборник. Нахчыван, 1983, 67 с.

**STRATEGY OF HEYDAR ALIYEV ON DEVELOPMENT OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC (70-80S OF THE XX CENTURY).**

***Adalet Gasimov***

The work considers main stages and results of social-economic development of Nakhchivan Autonomous Republic in the context of successful implementation of state regional policy on creation of modern branches of industry in Azerbaijan regions, rebirth of intensive agriculture, modernization of transport infrastructure. The author pays special attention to the role of nationwide leader of Azerbaijan Heydar Aliyev in lifting agriculture, level of life of the people, development of culture and strengthening scientific-technical basis in Nakhchivan in difficult conditions of transport blockade and Armenian aggression.

**СТРАТЕГИЯ ГЕЙДАРА АЛИЕВА ПО РАЗВИТИЮ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ (70-80-е гг. XX века).**

***Адачет Гасымов***

В работе рассматриваются основные этапы и итоги социально-экономического развития Нахчыванской Автономной Республики в контексте успешной реализации государственной региональной политики по созданию в районах Азербайджана современных отраслей промышленности, возрождению интенсивного сельского хозяйства, модернизации транспортной инфраструктуры. Автор особо останавливается на роли общенационального лидера Азербайджана Гейдара Алиева в деле подъема хозяйства, уровня жизни народа, развитии культуры и укреплении научно-технической базы в Нахчыване в сложных условиях транспортной блокады и армянской агрессии.

**«Dirçəliş XXI əsr».**-2010.-№141-142.-S.146-153.

# MİLLİ MƏTBUATIMIZIN XİLASKARI

**Müşfiq ƏMİROV,**
Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin
Mətbuat Xidmətinin rəhbəri

**Heydər Əliyevin bütün siyasi və dövlətçilik fəaliyyəti çağdaş Azərbaycanın, xalqımızın, milli dövlətçiliyin inkişafı və möhkəmlənməsi tarixidir. Onun həyat və fəaliyyətinin xronologiyası böyük bir tarixi dövrün parlaq səhifəsini təşkil edir. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlər ölkəmizin iqtisadi, ictimai-siyasi, mədəni-mənəvi inkişafında yüksəliş, tərəqqi meyilləri ilə fərqlənir. O, Azərbaycan tarixində yeganə şəxsiyyətdir ki, keçmiş SSRİ kimi super dövlətin siyasi rəhbərlik zirvəsinə yüksəlmiş və dünyanın tanınmış dövlət və siyasi xadimləri sırasında ən görkəmli və böyük təsirə malik olan dünya şöhrətli lider olduğunu əməli fəaliyyəti ilə göstərmişdir. Bütün bunlarla yanaşı ulu öndərin zəngin tarixi, mütərəqqi ənənələri olan Azərbaycan milli mətbuatının təşəkkül tapmasında rolu danılmazdır.**

Məhz ümummilli liderin sayəsində Azərbaycan milli mətbuatı ölkəmizdə həmişə qabaqcıl ideyaların carçısı, dövrün, ictimai-siyasi həyatın güzgüsü olmuşdur. Dahi şəxsiyyət Heydər Əliyev bildirirdi ki, xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasında və zənginləşməsində, Azərbaycan ədəbi dilinin inkişafında milli mətbuat müstəsna xidmətlər göstərmək iqtidarındadır.

Azərbaycanda demokratik, plüralist mətbuatın formalaşmasından, onun hüquqi normativ bazasının yaradılmasından, fikir və məlumat azadlığının təmin edilməsindən danışarkən ümummilli lider Heydər Əliyevin xidmətlərini xüsusi qeyd etmək lazımdır. Azad mətbuatın inkişafına əngəl yaradan süni məhdudiyyətlərin, o cümlədən senzuranın aradan qaldırılması, qanunvericiliyin təkmilləşdirilməsi və müasir dünya standartlarına uyğunlaşdırılması, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi və mətbuata çoxsaylı güzəştlərin müəyyənləşdirilməsi, bu istiqamətdə verilmiş bir sıra fərman və sərəncamlar, mətbuat işçiləri ilə mütəmadi görüşlər ənənəsinin yaradılması, KİV-lə bağlı problemlərə operativ və prinsipial müdaxilə – bütün bunlar Heydər Əliyevin azad sözə verdiyi qiymətin təzahürüdür.

Azərbaycan Respublikasının müstəqillik qazandığı və suveren dövlət quruculuğu prosesini yaşadığı müasir dövrdə kütləvi informasiya vasitələri, o cümlədən milli mətbuatımızın qarşısında tamamilə yeni vəzifələr dururdu. Lakin bu ümdə vəzifələri həyata keçirmək üçün böyük dəstəyə ehtiyac var idi. Dahi liderin müstəqil mətbuata göstərdiyi qayğı sayəsində kütləvi informasiya vasitələrinin (KİV) sivil, demokratik vətəndaş cəmiyyəti quruculuğunda, iqtisadi və sosial islahatların həyata keçirilməsində, cəmiyyətdə sosial ədalət və şəffaflığın təmin edilməsində, insan hüquqlarının müdafiəsində, həmrəylik və tolerantlıq mühitinin yaradılmasında, milli şüurun, siyasi mədəniyyətin və bütövlükdə sağlam mənəvi dəyərlərin formalaşması istiqamətində rolu artdı.

Məhz buna görə də, milli mətbuatımızın bərqərar olmasında Həsən bəy Zərdabinin adını iftixarla çəkdiyimiz kimi, müstəqil Azərbaycan mətbuatının tərəqqisi naminə ulu öndər Heydər Əliyevin yürütdüyü siyasəti böyük qürurla qeyd etməliyik. Ona görə ki, milli mətbuatımızın çiçəklənmə dövrü məhz 1993-cü ildən ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra başlayıb. Azərbaycan 70 ilə yaxın SSR-nin tərkibində olarkən müstəqil mətbuat buxovlanmışdı. Çünki o zamanlar Azərbaycanda müstəqil mətbuata senzuralar tədbiq olunurdu. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanda həm də müstəqil mətbuatın əsası qoyulub. Ancaq 1993-cü ildə xalqın təkidi ilə yenidən hakimiyyətə gələn müdrik dövlət xadimi Heydər Əliyev uçuruma yuvarlanmaqda olan müstəqil Azərbaycan Respublikasını xilas etdi. Ulu öndər ölkə həyatının bütün sahələrində olduğu kimi, milli mətbuatımızda yaranmış problemləri də tədricən aradan qaldırmağa başladı. Ölkənin müvafiq qanunvericilik aktlarında dəyişikliklər aparıldı, Azərbaycan söz və mətbuat azadlığının təmin olunması ilə əlaqədar mövcud olan beynəlxalq konvensiyalara və sazişlərə qoşuldu.

Məhz həmin illərdə ulu öndər Heydər Əliyev informasiya və mətbuat azadlığına daha böyük meydan verdi. Görkəmli siyasi xadim Heydər Əliyevin atdığı ən böyük addımlardan biri də 1999-cu ildə "Kütləvi İnformasiya Vasitələri haqqında" Qanunu imzalaması oldu və bu sənədlə Azərbaycanda mətbuatın dövlət qeydiyyatı ləğv olundu və yeni mətbuat orqanlarının təsis olunması proseduru xeyli asanlaşdırıldı.

Daha sonra "2000-2001-ci illərdə Kütləvi İnformasiya Vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqramı"nın 2000-ci il martın 6-da Heydər Əliyev tərəfindən təsdiq edilməsi ilə mətbuatın daha da inkişaf etdirilməsi üçün əlverişli şərait yaradıldı. Həmin proqramda jurnalist kadrları hazırlayan təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, kütləvi informasiya vasitələrinin

istehsal və yayımla bağlı problemlərinin həll olunmasından ötrü əlaqələndirmə şurasının yaradılması və başqa mühüm məsələlərin həlli irəli sürülürdü.

2001-ci il dekabrın 18-də Prezident sarayında ölkəmizdə fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşən dövlət başçısı Heydər Əliyev demişdir: "Biz mətbuat haqqında bir neçə ciddi addım atmışıq: söz azadlığının, mətbuat azadlığının təmin olunması, senzuranın aradan qaldırılması, bütün mətbuat orqanlarına sərbəstlik verilməsi… Əgər bu gün hansısa yeni bir şey varsa, biz onu da edirik və edəcəyik".

2002-ci il mayın 11-də Heydər Əliyev "Çağdaş zəmanəmizdə milli mətbuatımızın üzərinə daha böyük vəzifələr düşür və biz əminik ki, bütün müsbət və mənfi tərəflərinə baxmayaraq mətbuatımız getdikcə daha da inkişaf edəcəkdir. Mətbuat cəmiyyətin güzgüsüdür və elə buna görə də bu sahədə çalışan qələm sahibləri bütün fəaliyyətləri boyu həqiqəti, doğruçuluğu, düzgünlüyü və obyektivliyi başlıca meyar kimi qəbul etməli və buna əməl etməlidirlər. Belə olarsa ölkəmizdə həqiqətən də əsil azad, müstəqil mətbuat formalaşar və bundan bütün xalqımız, ölkəmiz faydalanar" – deyə qeyd etməsi ilə KİV-in nə qədər böyük gücə malik olduğunu vurğuladığı kimi, həm də mətbuat işçilərini peşə doktrinalarına ciddi və məsuliyyətli şəkildə əməl etmələrini xatırlatdı.

Heydər Əliyev həm də jurnalistlərə qarşı səmimi münasibəti ilə seçilirdi. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev Azərbaycanda milli mətbuatın daha da inkişaf etdirilməsi sahəsindəki xidmətlərinə görə 2002-ci il martın 22-də "Ruh" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin təsis etdiyi "Jurnalistlərin dostu" mükafatına layiq görüldü. Heydər Əliyev "Sizi əmin edirəm ki, mən keçmişdə olduğu kimi, bu gün də jurnalistlərin dostuyam və həmişə jurnalistlərin dostu olacağam", – söyləmişdir.

Bu gün Prezident İlham Əliyev dövlət-mətbuat münasibətlərində Heydər Əliyevin siyasətini və ənənələrini uğurla davam etdirərək Azərbaycanda mətbuatın fəaliyyətinə normal şərait yaradılması, onun cəmiyyət həyatına təsirinin, demokratikləşmə proseslərində rolunun təmin edilməsi və artırılması, vətəndaşların və jurnalistlərin informasiya almaq hüququnun tam reallaşdırılması istiqamətində ardıcıl tədbirlərin görülməsi üçün müvafiq qurumların qarşısında konkret tələblər qoyub.

Ölkə başçısının diqqət və qayğısı sayəsində qloballaşma və informasiya əsrində bütün dövlət orqanlarının fəaliyyətində professionallıqla yanaşı şəffaflıq prinsiplərinə əməl edilməsi, onların ictimaiyyətlə əlaqələrinin fəallaşması üçün təsirli tədbirlər görülməsi halları genişlənmişdir. Hökumət səviyyəsində dövlət qurumları qarşısında KİV-lə normal, işgüzar münasibətlərin qurulması, jurnalistlərin informasiya almaq hüquqlarına hörmətlə yanaşılması, mətbuatla hərtərəfli əməkdaşlıq edilməsi vəzifəsi qoyulub. Bundan başqa mətbuatın müstəqilliyinin, maddi bazasının, maliyyə təminatının möhkəmləndirilməsində, jurnalistlərin peşəkarlıq səviyyəsinin, nüfuzunun yüksəldilməsində dövlətin maraqlı olduğu bəyan edilir və bunun üçün konkret tədbirlər görülür.

İndi biz – kütləvi informasiya vasitələrinin təmsilçiləri qürur hissi ilə və iftixarla deyirik ki, bəli, ümummilli lider Heydər Əliyevin mübarizliyi, əzmkarlığı sayəsində ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi uğurla həyata keçirilir. "Ölkəmizdə siyasi plüralizmin tələblərinə dönmədən əməl edilir. Söz, fikir və əqidə azadlığının təmin olunması, kütləvi informasiya vasitələrinin hərtərəfli inkişafı, onların sərbəst fəaliyyəti üçün zəruri şəraitin yaradılması Azərbaycanın dövlət rəhbəri kimi mənim qarşımda duran mühüm vəzifələrdəndir" – deyən ümummilli lider Heydər Əliyev milli mətbuatımızın inkişafında əvəzedilməz xidmətlər göstərərək müvafiq sahədəki problemləri hələ vaxtında ardıcıllıqla aradan qaldırıb.

"**Azərbaycan**".-2010.-13 iyun.-N 127.-S.6.

# AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNƏ ETİBARLI TƏMİNAT YARADAN LİDER

**Rafael CƏBRAYILOV,**
Milli Məclisin deputatı

Tarix boyu şəxsiyyətlərin cəmiyyətdəki rolunu aydınlaşdırmağa çalışmış böyük mütəfəkkirlər daim bu fenomeni öyrənməyə, obyektiv elmi-politoloji nəticələr çıxarmağa çalışmışlar. Çoxsaylı nəzəriyyələrə, geniş fikir müxtəlifliyinə baxmayaraq ümumi qənaət bundan ibarət olmuşdur ki, hər bir xalqın milli inkişaf yolunu müəyyənləşdirərək onu dünya miqyasında tanıdan, layiqli mövqelərə çıxaran məhz dahi şəxsiyyətlərdir. Bu mənada, məşhur alman mütəfəkkiri Fridrix Nitşenin vaxtilə söylədiyi bir fikir hazırda da öz aktuallığını saxlayır: tarix şəxsiyyətləri deyil, şəxsiyyətlər tarixi yaradır.

Bəşəriyyətin təkamül və inkişaf mərhələləri bu mülahizənin həqiqiliyini tam təsdiqləməklə yanaşı, böyük dühaların, siyasət ustadlarının öz xalqlarının taleyində oynadıqları müstəsna rolu bütün qabarıqlığı ilə üzə çıxarır. XX əsr Azərbaycan tarixinin ən böyük, fenomen şəxsiyyəti kimi şərəfli ömür yolunun 34 ilini xalqının nicatına həsr etmiş ulu öndər Heydər Əliyev də məhz belə liderlərdən olmaqla, müasir dövlətçiliyimizin ideoloji-siyasi əsaslarını yaratmış, xalqı həqiqi müstəqilliyə qovuşduraraq onun qəlbində özünə möhtəşəm bir abidə ucaltmışdır. İndi siyasi baxışlarından asılı olmayaraq mütləq əksəriyyət etiraf edir ki, zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı üçün belə real tarixi şans ötən əsrin ikinci yarısında – ulu öndər Heydər Əliyevin 1969-cu ilin 14 iyulunda respublika rəhbəri seçilməsindən sonrakı mərhələdə yaranmışdır. Ulu öndərin respublikaya birinci rəhbərlik dövrü çağdaş tariximizə iqtisadi və mədəni yüksəliş dövrü kimi daxil olmuş, xalqın milli mənlik şüurunun, özünüdərk hissinin güclənməsinə təkan vermişdir. Tarixi məhz bu dövrdən başlanan Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya-siyasi istiqamətini də xalqın milli özünüifadəsinin bütün forma və vasitələrinin geniş vüsət alması, milli qürur hissinin güclənməsi, ictimai şüurun yüksəlişinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi təşkil etmişdir. Xalqına, onun keçmişinə, tarixinə, adət-ənənələrinə, milli dəyərlərinə qəlbən bağlı olan bir şəxsiyyətin bu ali kürsüyə yüksəlməsi o ağır imperiya dövründə Azərbaycanda bütün sahələr üzrə intibaha və milli özünüdərkə əsaslı zəmin yaratmışdı.

**Xalqına bağlı rəhbər**

Tarixi faktlar təsdiqləyir ki, ötən əsrin 60-cı illərinin sonlarında Azərbaycan iqtisadi göstəricilərinə görə keçmiş SSRİ-də sonuncu yerlərdən birini tutmuş, respublikada iqtisadi-siyasi böhran dərinləşmişdi. Cəmiyyət həyatının ən müxtəlif sahələrində ideoloji-siyasi, sosial-iqtisadi və mənəvi böhran hökm sürür, neqativ hallar baş alıb gedirdi. Respublikamız bir çox sahələrdə – milli gəlirin inkişaf tempinə, sənaye və kənd təsərrüfatı istehsalının həcminə, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsalatda tətbiqinə, ictimai əməyin məhsuldarlığına görə ümumittifaq göstəricilərindən geridə qalırdı.

Yaranmış vəziyyətdə keçmiş SSRİ rəhbərliyi çıxış yolunu kadr dəyişikliyində görərək, ciddi və hərtərəfli araşdırmalardan sonra müxtəlif namizədlər arasından təşkilatçılığı, yüksək idarəçiliyi, savadı ilə fərqlənən, xalqın səciyyəvi milli xüsusiyyətlərinə dərindən bələd olan Heydər Əliyevin üzərində dayanmışdır. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il 14 iyul tarixli plenumu respublika partiya təşkilatının birinci katibliyinə namizəd məsələsini geniş müzakirə etmiş, toplantıda çıxış edənlər Heydər Əliyevin bu vəzifəyə ən layiqli şəxs olduğunu konkret arqumentlərlə əsaslandırmışlar. Həmin dövrdə 10 ildən artıq müddətdə respublikaya rəhbərlik etmiş Vəli Axundov plenumdakı çıxışında ümummilli lider Heydər Əliyevin yüksək mənəviyyata və idarəçilik keyfiyyətlərinə malik şəxsiyyət olduğunu xüsusi vurğulamışdır:

"Heydər Əliyevə xas olan bütün siyasi və iş keyfiyyətləri söyləməyə əsas verir ki, o, respublikaya layiqincə rəhbərlik edəcək, bütün böyük və çətin işin öhdəsindən bacarıqla gələcək. O, kifayət qədər savadlı, hərtərəfli hazırlıqlı, yüksək intellektə malikdir. O, bütün kadrlara qarşı eyni dərəcədə düzgün mövqedədir, çünki kifayət qədər obyektiv, vicdanlı və layiqli adamdır. Dzerjinski demişdi ki, çekistin isti ürəyi, aydın ağlı, təmiz əli olmalıdır. Bütün bu keyfiyyətlər Heydər Əliyevə məxsusdur və mən əminəm ki, respublikaya rəhbərlik edərkən o, bu cəhətlərdən istifadə edərək respublikanın gözəl adət-ənənələrini layiqincə davam etdirəcək".

Ulu öndər Heydər Əliyev həmin plenumda qarşıda duran mürəkkəb və çətin məsələlərin həlli, bir sıra ciddi problemlərin aradan qaldırılması üçün səylə işləyəcəyini, yüksək etimadı doğrultmağa çalışacağını vurğulamış, qarşıda duran vəzifələri düzgün və obyektiv dəyərləndirmişdir. Azərbaycanın yeni rəhbəri qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsi üçün əlindən gələni əsirgəməyəcəyini də xüsusi qeyd etmişdir: "Mən bütün büro üzvlərinin köməyinə ümid edirəm və hesab edirəm ki, birgə, mehriban əməkdaşlığımız gələcək uğurlarımıza gözəl zəmin yaradacaqdır".

Həmin plenumda Heydər Əliyevin rəhbər vəzifəyə namizədliyinin yekdilliklə dəstəklənməsi onun kamil şəxsiyyəti, yüksək idarəçilik keyfiyyətləri ilə şərtlənmişdir. Qeyri-adi, fitri istedadı, təşkilatçılıq və idarəçilik

məharəti, ən əsası, vətənpərvərliyi, milli ideallara bağlılığı ilə ilk gündən Azərbaycanın üzləşdiyi sosial-iqtisadi problemləri aradan qaldırmaq, qanunçuluğu və hüquq qaydalarını gücləndirmək, ciddi sosial bəlaya çevrilmiş korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə tədbirlərini genişləndirmək istiqamətində əzmkar fəaliyyətə başlayan Heydər Əliyev mütərəqqi idarəçilik ənənələrinin əsasını qoymuş, cəmiyyətin normal inkişaf ahəngini təmin etmişdir.

**İqtisadi müstəqilliyə etibarlı zəmin**

Zəngin təbii sərvətlərinə, istehsal potensialına baxmayaraq, Azərbaycanın keçmiş SSRİ-nin geridə qalmış respublikaları sırasına düşməsinin səbəblərini araşdıran Heydər Əliyev iqtisadi inkişafa xidmət edən kompleks tədbirlərin həyata keçirilməsini təmin etməklə, peşəkar strateq və müdrik dövlət xadimi olduğunu sübuta yetirmişdir. Ulu öndər respublikamızın üzləşdiyi problemlərin həlli üçün lazımi iradə, qətiyyət və prinsipiallıq göstərmiş, o dövrün naqisliklərini açıq deməkdən çəkinməmişdir. Bu baxımdan Heydər Əliyevin Azərbaycan KP MK-nın 5 avqust 1969-cu il tarixli plenumundakı dərin məzmunlu, eyni zamanda tənqidi çıxışı sovet Azərbaycanını problemlər məngənəsindən dinamik inkişaf yoluna çıxaran pozitiv prosesin başlanğıcı kimi xatırlanır. Plenumda tənqidi çıxış edən Heydər Əliyev həmçinin dövlət idarəçiliyi sistemində formalaşmış regionçuluq, bürokratiya və korrupsiya kimi neqativ tendensiyaların yolverilməz olduğunu vurğulamışdır. Ulu öndər eyni zamanda çoxsaylı problemlərin həllində bir sıra rəhbər şəxslərin məsuliyyət daşıdığını da aşkar bəyan etmişdir: “Azərbaycanın bütün İttifaq göstəricilərindən və digər respublikaların göstəricilərindən geri qalması ciddi təşviş hissi doğurur. Bunu nə ilə izah etmək olar? Aydındır ki, hər bir sahədəki çatışmazlıqların öz xüsusi səbəbləri vardır. Lakin təhlil göstərir ki, bir çox sahələr üçün səciyyəvi olan ümumi səbəblər də az deyildir. Bu, hər şeydən əvvəl etibar edilən iş sahəsi üçün bəzi rəhbərlərin məsuliyyət hissini itirməsindən ibarətdir. Odur ki, müəssisələrə rəhbərliyin səviyyəsi çox aşağıdır, lazımi tələbkarlıq və intizam yoxdur”.

Bu tarixi plenumdan sonra ulu öndərin rəhbərliyi altında respublikada geridə qalmış təsərrüfat sahələrinin inkişaf etdirilməsinin düzgün elmi yolları müəyyən edilmişdir. Ümummilli lider qısa müddətdə respublika iqtisadiyyatında ciddi keyfiyyət dəyişikliklərinə nail olmaqla, Azərbaycanı xammal istehsalçısından qabaqcıl, müasir texnika və texnologiya ilə təchiz olunmuş sənaye bazasına çevirə bilmişdir. Keçmiş Sovet İttifaqının zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək respublikanı tərəqqi yoluna çıxaran Heydər Əliyev yeni və mütərəqqi sənaye sahələrinin yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirmişdir. Elmi-texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalatda tətbiqi Azərbaycanın bütün SSRİ-də qabaqcıl mövqelərə çıxmasına, ölkənin sosial-iqtisadi həyatında yüksəlişə rəvac vermişdir. Eyni zamanda, Heydər Əliyevin yüksək idarəçilik bacarığı, işgüzarlığı və zəngin iqtisadi biliyi qısa müddətdə elmi nailiyyətlərin istehsalatda tətbiqinə, kənd təsərrüfatında struktur dəyişikliklərinin edilməsinə, yeni ehtiyat mənbələrin meydana çıxarılması və istifadəsi yolu ilə təsərrüfatçılıqda geriliyə son qoyulmasına, bir sözlə, sosial-iqtisadi tərəqqiyə imkan yaratmışdır.

Ötən əsrin 70-ci illərinin ortalarında Azərbaycan kənd təsərrüfatı və sənaye məhsulları istehsalına görə keçmiş SSRİ-də ön yerlərdən birinə yüksəlmiş, milli gəlir artmış, ölkə böyük tikinti-quruculuq meydanına çevrilmiş, yeni-yeni istehsal müəssisələri fəaliyyətə başlamışdır. Həmin illərdə Bakıda, Sumqayıtda, Gəncədə və digər şəhərlərdə inşa olunan iri müəssisələr bu günün özündə də milli iqtisadiyyatımızın güclü sənaye kompleksinin formalaşmasına zəmin yaradan möhkəm təməldir. Ümummilli liderin təşkilatçılıq qabiliyyəti və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri məhz Azərbaycanda inşa olunmuş, bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsası formalaşdırılmışdır. Bu nöqteyi-nəzərdən ulu öndərin Bakı Məişət Kondisionerləri zavodunun inşası ilə bağlı göstərdiyi əzmkarlığı xüsusi qeyd etmək lazımdır. 70-ci illərin əvvəllərində ittifaq rəhbərliyi bu zavodun Zaporojye şəhərində inşa olunmasına qərar versə də, şəxsi nüfuzundan istifadə edən Heydər Əliyev Brejnevlə görüşərək həmin müəssisənin məhz Bakıda tikilməsinin vacibliyini konkret dəlillərlə əsaslandıraraq son nəticədə istəyinə nail olmuşdur. 1975-ci ilin dekabrında Bakı Məişət Kondisionerləri zavodunun işə düşməsi məhz dahi öndərin böyük vətənpərvərliklə həyata keçirdiyi əzmkar fəaliyyətin məntiqi nəticəsi idi.

**Neft sənayesində mütərəqqi yeniliklərin təşəbbüskarı**

Neft sənayesinin iqtisadi inkişafdakı rolunu müdrikliklə nəzərə alan Heydər Əliyev 70-ci illərdə bu sahənin dinamik inkişafına nail olmuş, neft-kimya sənayesinin tamamilə modernləşdirilməsini təmin etmişdir. Həmin dövrdə neft sənayesinin inkişafında tamamilə yeni mərhələ başlanmış, bu zəngin milli sərvətin Azərbaycanın rifahına xidmət edən vasitəyə çevrilməsi prosesinin əsası qoyulmuşdur. Yeni yataqların kəşfiyyatı, qazılması, işlənməsi, mütərəqqi texnologiyalardan və üsullardan istifadədə yeniliklər də məhz Heydər Əliyevin təşəbbüskarlığı nəticəsində mümkün olmuşdur. Ümummilli liderin qətiyyətli addımları nəticəsində ölkədə neft sənayesi konsepsiyasının nəzəri inkişafını təmin edən elmi-tədqiqat institutları, istehsalat birlikləri və digər müəssisələr yaradılmışdır.

Həmin dövrədək Xəzər dənizinin 40 metr dərinliyinə qədər sahələrdə bütün neft-qaz yataqları kəşf edilərək istismar olunurdu. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin təşəbbüsü ilə 12 il müddətində Azərbaycana əvvəlcə dənizin 70 metr, sonra isə 200 metrədək dərinliyində işləyən "Şelf-2", "Şelf-3", "Şelf-4", "Şelf-5" kimi qurğular gətirilmişdir. Qurğuların işini təşkil etmək üçün "Süleyman Vəzirov", "İsrafil Hüseynov" kimi boruçəkən gəmilər, 2500 ton yük qaldıra bilən "Azərbaycan" kran gəmisi, geofiziki kəşfiyyat işləri aparan gəmilər, başqa texniki gəmilər gətirilmişdir. Açılan neft yataqlarında platformalar tikmək üçün Bakıda Dərin Dəniz Özülləri Zavodunun inşası da Heydər Əliyevin tarixi xidmətləri ilə bağlıdır. (Bu da təsadüfi deyildir ki, həmin zavod hazırda ulu öndərin adını daşıyır – R.C.).

Heydər Əliyevin müəllifliyi ilə tərtib olunan "Azərbaycanda neftayırma sənayesinin yenidən qurulması" planı əsasında bu tipli müəssisələrin, iri komplekslərin tikilməsi və yeni fəaliyyət prinsiplərinə keçməsi prosesi sürətlə başa çatdırılmışdır. Azərbaycan məhz Heydər Əliyevin fədakarlığı nəticəsində keçmiş SSRİ-də neft hasilatı, emalı, geologiyası, kəşfiyyatı ilə məşğul olan aparıcı respublikalardan birinə çevrilmiş, əldə olunan uğurlar isə bilavasitə respublikamızın inkişafına yönəldilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin bəyan etdiyi kimi, əgər 70-ci illərdə Azərbaycanın təkmil neft sənayesi kompleksi formalaşdırılmasaydı, müstəqillik dövründə yeni neft strategiyasını uğurla həyata keçirmək də çətin olacaqdı. Keçmiş imperiya daxilində hansı qlobal proseslərin getdiyini daha dərindən müşahidə etmək imkanına malik olan Heydər Əliyev Azərbaycanın nə vaxtsa müstəqillik əldə edəcəyini öncədən görərək bunun üçün iqtisadi-siyasi, intellektual baza formalaşdırmışdır.

**Haqqa tapınmaqla ucalan rəhbər**

Respublikaya rəhbərliyinin ilkin dövrlərindən başlayaraq ulu öndər cəmiyyətdə qanunçuluğun, hüquq qaydalarının möhkəmləndirilməsi istiqamətində prinsipial addımlar atmış, milis, prokurorluq və məhkəmə orqanlarında sağlam mühitin formalaşmasına çalışmış, xüsusən də iqtisadi cinayətlərə – dövlət əmlakının mənimsənilməsi hallarına qarşı səmərəli mübarizə mexanizmləri tətbiq etmişdir. O, 70-ci illərin əvvəllərindən başlayaraq rüşvətxorluğa, oğruluğa, əliəyriliyə və mənəviyyata zidd digər təzahürlərə qarşı amansız mübarizə aparmış, belə hallara yol verənlərin cəzalandırılmasında israrlı olmuşdur.

Ümummilli lider Heydər Əliyevin hələ o dövrdən idarəçilikdə təməlini qoyduğu mütərəqqi ənənələrdən biri də məhz xalq arasına çıxmaqla, sadə vətəndaşlarla canlı ünsiyyət yaratmaqla mövcud problemləri, eləcə də dövlət məmurlarının işə münasibətini öyrənmək olmuşdur. Heydər Əliyev hələ o dövrdən insanlarla ünsiyyətdə olmağı, onların üzləşdiyi çətinlikləri yerindəcə öyrənib təxirəsalınmaz tədbirlər həyata keçirməyi idarəçilikdə müsbət ənənə kimi yaratmış, dövlət məmurlarının sadə xalq kütlələri ilə münasibətlərdə hər cür baryerə, bürokratik əngəllərə qarşı çıxmışdır. 2000-ci ildə – Azərbaycanın milli mətbuatının 125 illiyi münasibəti ilə keçirilən tədbirdə ulu öndər jurnalistlərlə söhbətində həmin dövrü belə xatırlamışdır: "Mağaza müdirləri, taksi sürücüləri mənim portretlərimi ordan-burdan tapıb bir-birinə satmışdılar, vermişdilər ki, mağazaya gələn olanda bu portretə baxıb görsün, bu, Əliyevdir, yoxsa yox. Məsələn, mən bir dəfə gedib ət növbəsinə durdum. Nəyə görə? Çünki o vaxt üç növ ət var idi. Bu, mənim yaxşı yadımdadır. Bunlardan biri 3 manat 20 qəpik, digəri 3 manat 50 qəpik, o birisi isə deyəsən, 3 manat 80 qəpik idi. Qəssab nə edirdi? O, üçüncü növ əti birinci növ əvəzinə satırdı, yaxud 3 kiloqram ət verəndə adamları yarım kiloqram aldadırdı. Mən iki-üç dəfə gedib növbəyə durdum. Məni də aldadanda onu tutdum, milisi və başqalarını çağırdım. Mən şəxsən özüm bir neçə dəfə belə etdim, – insanlar bilsinlər ki, axı, belə iş görmək olmaz".

Böyük strateq Heydər Əliyevin yaratdığı spesifik idarəçilik modelinin üstün cəhətlərindən biri də kadr seçimində sosial ədalətsizliyin aradan qaldırılması – daha çox yüksək mənəvi-əxlaqi keyfiyyətləri, intellektual səviyyəsi və yüksək bilik səviyyəsi ilə fərqlənən gənclərə üstünlük verilməsidir. Geniş imtiyazlara, səlahiyyətlərə malik vəzifəli şəxslərin övladlarının hüquq fakültəsinə daxil olmasını yasaqlayan qərarı imzalamış ümummilli lider, əslində, bununla təhsil sistemində özünü qabarıq göstərən neqativ tendensiyalara qarşı amansız mübarizəyə qalxmışdır. Bu prinsipial addımı ilə imkansızların, zəhmətkeş övladlarının o zamankı Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmasına imkan yaradan şəffaf mühitin formalaşdırılmasına nail olmuşdur. Həmin illərdə yaranmış demokratik və şəffaf mühit nəticəsində istəyinə qovuşmuş yüzlərlə zəhmətkeş azərbaycanlı övladı – respublikamızın hazırkı adlı-sanlı hüquqşünasları ulu öndərin bu addımını daim böyük rəğbət və ehtiramla xatırlayırlar.

Ulu öndərin həmin illərdə minlərlə gəncin respublikamızın hüdudlarından kənarda ali təhsil almasına, ixtisaslı kadr kimi yetişməsinə hər cür kömək göstərməsi də onun xeyirxahlığının bariz ifadəsidir. 70-80-ci illərdə 10 mindən artıq gənci keçmiş SSRİ respublikalarının ali məktəblərinə təhsil almağa göndərən Heydər Əliyev yüksək ixtisaslı, vicdanlı və peşəkar hüquqşünas kadrların hazırlanması, hüquq-mühafizə sisteminin sağlamlaşdırılması məsələsinə də qayğı ilə yanaşmışdır. Eyni zamanda Heydər Əliyev Azərbaycanda bir sıra yeni ixtisaslar üzrə – informasiya texnologiyaları, beynəlxalq hüquq, beynəlxalq münasibətlər, aviasiya və s. –

mütəxəssis hazırlayan ali məktəblərin olmadığını nəzərə almaqla, minlərlə azərbaycanlı gəncin Moskva, Kiyev, Minsk və başqa şəhərlərdəki nüfuzlu ali məktəblərə göndərilməsini təmin etmişdir. Böyük strateq sonralar qeyd edirdi ki, 70-80-ci illərdə ideologiyadan, ictimai-siyasi, iqtisadi sistemdən asılı olmayaraq Azərbaycan xalqının böyük bir nəsli təhsil almış, böyümüş, yüksək səviyyəyə çatmış, böyük elm və mədəniyyətə sahib olmuşdur.

**Milli-mənəvi irsə yüksək qayğı nümunəsi**

Ulu öndər Heydər Əliyev sərt ideoloji baryerlərin mövcud olduğu keçmiş imperiya dövründə Azərbaycanın müstəqilliyi üçün iqtisadi-siyasi zəmin formalaşdırmağa çalışmış, milli ruhun yüksəlişinə xidmət edən bir sıra mühüm addımlar atmışdır. Böyük strateq ötən əsrin 70-80-ci illərində böyük təzyiqlərlə, təqiblərlə üzləşsə də, heç bir riskdən çəkinməyərək əzmkar fəaliyyəti ilə xalqda tarixi keçmişi, milli kimliyi, dili, mədəniyyəti, milli adət-ənənələri və düşüncə sistemi barədə dolğun təsəvvürlər formalaşdıra bilmişdir. O dövrdə repressiya qurbanlarına bəraətin verilməsi istiqamətində gördüyü işlər də məhz azərbaycançılıq məfkurəsinin güclənməsinə xidmət etmişdir. Heydər Əliyev fenomeninin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəricisi də məhz azərbaycançılıq məfkurəsinin, milli ruhun hədsiz yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsi, real siyasi amilə çevrilməsidir.

1969-cu ildə respublikaya rəhbər təyin olunan Heydər Əliyev rəsmi dövlət tədbirlərində azərbaycanca çıxış etməklə cəmiyyətə milliləşmənin zəruriliyi mesajını vermiş, milli dilə, dinə, dəyərlərə bağlı olmağı, tarixi irsi yaşatmağı ictimai fikrə böyük müdrikliklə ünvanlamışdır. Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin varlığını təsdiqləyən rəmzlərə və atributlara münasibəti hər zaman həssas olmuşdur. Hələ 1978-ci ildə Azərbaycan SSR-nin Konstitusiya layihəsi qəbul edilərkən, ulu öndərin Azərbaycan dilinin bu ali sənəddə ana dili kimi təsbitlənməsi sahəsində nümayiş etdirdiyi rəşadəti xüsusi xatırlatmaq lazımdır. Eyni zamanda, ümummilli liderin təşəbbüsü və köməyi ilə 70-ci illərdə nəşr olunmuş 3 cildlik “Müasir Azərbaycan dili” dərsliklərinə dövlət mükafatı verməsi də xalqın milli şüurunun formalaşmasına mühüm töhfə olmuşdur.

Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycanın görkəmli şəxsiyyətlərinin adlarını əbədiləşdirməklə, əsərlərinin təkrar nəşrini təşkil etməklə, heykəllərini ucaltmaqla, muzeylərini yaratmaqla xalqın tarixini, mədəniyyətini, ədəbiyyatını yaşatmaq, bütövlükdə isə milli yaddaşın qorunub gələcək nəsillərə çatdırmaq məqsədini güdmüşdür. Dahi öndərin vətənpərvər fəaliyyətinin nəticəsi olaraq respublikada milli ruhlu ziyalı təbəqəsi formalaşmış, Azərbaycan tarixçiləri şanlı keçmişimizin mümkün qədər obyektiv tədqiqi və qələmə alınması istiqamətində ilk addımlarını atmağa başlamışlar. Yaranmış əlverişli imkanlardan istifadə edərək, Atabəylər dövlətinin tarixini yazan mərhum akademik Ziya Bünyadov 70-ci illərin ortalarında ümummilli lider tərəfindən dövlət mükafatına layiq görülmüşdür.

**Həqiqi müstəqilliyin təminatçısı**

Ulu öndər Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə gəlişi də birinci dəfə olduğu kimi, respublikanın üzləşdiyi ağır sosial-iqtisadi, mənəvi mühitlə şərtlənmişdir. Ulu öndər 1993-cü ilin – iyununda kifayət qədər böhranlı bir dövrdə xalqın çağırışına cavab verərək, Azərbaycanın idarəçilik sükanı arxasına keçmiş, qısa müddətdə milli dövlətçilik doktrinasını irəli sürərək onun sürətli icrasına başlamışdır.

Ulu öndərin 1993-cü ilin oktyabrında dövlət başçısı seçilməsindən sonra müstəqil Azərbaycan dövlətinin hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi daha da sürətlənmişdir. Ümummilli lider, ilk növbədə, ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparmış, qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirilmiş, Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas edilmişdir. Heydər Əliyev bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə respublikanın qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə, dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla çıxmış, müsbət nəticələri sübut olunmuş inkişaf kursunun tətbiqinə nail olmuşdur.

Yeni minilliyin başlanğıcında formalaşan mürəkkəb və ziddiyyətli dünya nizamı böyük siyasət ustadının məharətlə əsaslandırdığı bu inkişaf modelinin respublikamız üçün müstəsna əhəmiyyətini tam sübuta yetirir. Respublikamızın son 17 ildə iqtisadi və demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində qazandığı böyük nailiyyətlər də məhz ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılmış möhkəm təmələ əsaslanır. Son illərdə bu inkişaf modelinin yeni dövrün tələblərinə uyğun daha da təkmilləşdirilməsinə xidmət edən kompleks islahatlar Azərbaycanı daha da gücləndirmişdir. Bu gün dünyanın ən müxtəlif iqtisadi mərkəzləri respublikanın davamlı iqtisadi yüksəlişi timsalında XXI əsrin yeni iqtisadi fenomenini görür, Azərbaycan modelinin mahiyyətini öyrənməyə çalışırlar.

Azərbaycanın dayanıqlı və sabit inkişafı üçün nəinki proqressiv proqram və konsepsiyalar mövcuddur, eyni zamanda, ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanaraq ölkəmizin intibahının təminatına çevrilmiş sosial-iqtisadi inkişaf strategiyası uğurlu nəticələr verir. Azərbaycanda vətəndaş cəmiyyətinin qurulması, milli təhlükəsizlik və xarici siyasət problemlərinin həlli, milli-mənəvi inkişaf istiqamətində görülən

işlər bütünlüklə müstəqillik amilinin praktiki baxımdan bərqərar olmasına yönəlmişdir. Xalqın sosial sifarişi əsasında Azərbaycanda Heydər Əliyev siyasi kursunu davam etdirmək kimi çətin və məsuliyyətli bir missiyanı üzərinə götürmüş cənab İlham Əliyev öz siyasətini bu ənənələr çərçivəsində qurur.

Statusundan asılı olmayaraq insanın hansı ideyanın daşıyıcısı, hansı əməlin sahibi olduğunu müəyyənləşdirmək üçün ən etibarlı istinad yeri onun gördüyü işlərdir. Cənab İlham Əliyev bütün sahələrdə Heydər Əliyev ideyalarının layiqli davamçısı olduğunu hələ Prezident seçilməmişdən əvvəl də ulu öndərin müəllifi olduğu neft strategiyasının həyata keçirilməsinə, Milli Məclisin deputatı və Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri kimi beynəlxalq təşkilatlarla münasibətlərin inkişafına, Azərbaycan idmanının yüksəlişinə verdiyi töhfələrlə sübuta yetirmişdir. Dövlətə rəhbərlik fəaliyyətinin ötən 7 ili isə cənab İlham Əliyevin Azərbaycan xalqına, dövlətinə qazandırdığı daha böyük uğurlarla əlamətdar olmuşdur.

Reallığı düzgün qiymətləndirmək bacarığı, praqmatikliyi, işgüzarlığı, sadəliyi, səmimiliyi, təvazökarlığı, alicənablığı, insanlara təmənnasız münasibəti, xalqına, millətinə, Vətəninə sevgisi, nəcibliyi, ziyalılığı, qətiyyətliliyi, məqsədə doğru inamla irəliləməsi cənab İlham Əliyevə xalqın rəğbət hissini daha da artıran ən mühüm mənəvi keyfiyyətlərdir. İntellektlə istedadın, ənənə ilə novatorluğun, keçmişlə gələcəyin üzvü vəhdətinə, yaradıcı sintezinə nail olmaq qabiliyyəti, Azərbaycanın dünəni, bugünü və sabahına sonsuz, sarsılmaz sədaqət – bunlar cənab İlham Əliyev şəxsiyyətini hər kəsə sevdirən cəhətlərdir. Bu səbəbdən də, cənab İlham Əliyevin pozitiv siyasi obrazının mahiyyətini ictimai rəyin adekvat münasibətində axtarmaq lazımdır. Ötən 7 ilə yaxın müddətdə Azərbaycan cəmiyyətində qəti olaraq belə rəy formalaşmışdır ki, Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi prioritetlərin varisliyini uğurla təmin etmiş alternativsiz liderdir.

Ulu öndərin qurub-yaratdığı, müstəqilliyə qovuşdurduğu Azərbaycan hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında sürətlə inkişaf edir, qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləyir. Respublikamız ümumbəşəri dəyərlərə əsaslanaraq mütərəqqi inkişaf kursu seçməklə, demokratikləşmə, insan hüquq və azadlıqlarının təminatı sahəsində ciddi nailiyyətlərə imza atır. Dövlət başçısı cənab İlham Əliyev respublikanın sosial-iqtisadi inkişafına paralel gedən demokratikləşmə prosesini bir-birindən təcrid olunmuş şəkildə götürmədən hər iki xətti Azərbaycanın gələcək yüksəlişinin mühüm şərti hesab edir. Cənab İlham Əliyev çıxışlarında hər zaman bildirir ki, hər hansı ölkənin inkişafı heç də təbii sərvətlərin zənginliyi ilə deyil, demokratikləşmə proseslərindən, qanunun aliliyinin qorunmasından, vətəndaş cəmiyyəti təsisatlarının inkişafından asılıdır. Azərbaycanın bu günkü dinamik iqtisadi inkişafı isə deməyə əsas verir ki, respublikamız yaxın gələcəkdə bütün sahələrdə dünyanın qabaqcıl ölkələrindən birinə çevriləcəkdir.

**“Xalq qəzeti”.-** 2010.- 14 iyul.-N 149.-S.5.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MİLLİ İQTİSADİ İNKİŞAF MODELİ

**Dünyamalı VƏLİYEV**
iqtisad elmləri namizədi, dosent,
«Azərbaycan» Universitetinin Ümumi iqtisadiyyat kafedrasının müdiri

***Biz respublikamızda hüquqi – demokratik dövlət qurmaq yolu ilə gedirik. Bu, dövlət quruculuğunda, siyasi sahədə strateji yolumuzdur. Bununla çox sıx əlaqədə olan ikinci sahə iqtisadiyyatın demokratik yollarla idarə edilməsidir, yəni iqtisadiyyatda demokratik islahatlar aparılması, bazar iqtisadiyyatı yoludur. Bütün bunlar kompleks şəkildə respublikamızı gələcəyə aparan yollar, istiqamətlərdir.***
***Heydər ƏLİYEV***

XXI əsrin astanasında Azərbaycan Respublikasının müstəqil inkişaf yoluna qədəm qoyması ölkəmizin gələcək sosial-iqtisadi təkamülündə dönüş nöqtəsi oldu və bu təkamül prosesində taleyüklü dəyişikliklərin meydana gəlib genişlənməsi üçün zəmin təşkil etdi. Lakin tarixi təcrübə göstərir ki, zəngin təbii və iqtisadi sərvətlərə malik olan ölkələrdə müstəqilliyin qorunub saxlanılması bəzən onun əldə edilməsindən daha çətin və mürəkkəbdir. Düşmən dövlətlərlə əhatə olunmuş və təcrübəsiz dövlət rəhbərləri ilə idarə olunan Azərbaycanda bu daha da çətin idi. Ölkəmiz yalnız dövlət müstəqilliyini itirmək təhlükəsi ilə qarşılaşmamış, eyni zamanda, real olaraq onun ərazi bütövlüyünə qəsd edilmişdi və üstəlik, daxildən də parçalanmaq təhlükəsi vardı.

Müstəqilliyimiz düşmən dövlətlər tərəfindən açıq-aşkar hərbi təcavüzə və siyasi təzyiqlərə məruz qalırdı. Həm də xalqımız iqtisadi sarsıntılar, çətinliklər girdabına düşmüşdü. Bunun isə kökləri olduqca dərindir. İstehsal olunan məhsullar tələbata cavab vermədiyi üçün anbarlarda yığılıb qalır, strateji məhsullar isə blokada vəziyyətində olduğumuz üçün xarici bazarlara böyük çətinliklə çıxarılırdı. Həm valyuta çatışmazlığı, həm də yolların təhlükəli olması ilə əlaqədar mal idxalı da böyük çətinliklə həyata keçirilirdi. Ölkə əhalisi açıq-aşkar aclıq imtahanına çəkilirdi. Ərzaq anbarları boşalmış, ilkin tələbat mallarının istehsalı xeyli dərəcədə azalmışdı. Dəyirmanlar boşalmışdı.

Elə gün olurdu ki, Qazaxıstandan yola salınmış un gecə Bakıya çatmasaydı, səhəri gün şəhərdə aclıq baş verə bilərdi. Ona görə də dövlət orqanlarının bütün gücü həmin unun Bakıya vaxtında çatdırılmasına yönəldilirdi. Məsuliyyətsiz bəzi vəzifəli şəxslər isə bu çətinlikdən öz ciblərini doldurmaq üçün istifadə edirdilər. 1992-ci ilin qışında ölkəni Avropa Birliyindən alınan 300 min ton, 1993-cü ilin qışında isə Türkiyənin verdiyi yenə 300 min ton əvəzsiz un və taxıl yardımı xilas etdi.

Amma ölkənin əsl xilaskarı 1993-cü ildə xalqın istəyi ilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıtması oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi: “Belə bir çətin anda, çətin dövrdə xalqımızın müdrikliyi bir daha özünü göstərdi. Xalqın təkidi və tələbi ilə ümummilli liderimiz Heydər Əliyev Azərbaycana qayıtdı, xalq onu Prezident seçdi və ondan sonra ölkəmizin inkişaf dövrü başlandı. Bütün xoşagəlməz meyllərə son qoyuldu, sabitlik, ictimai asayiş bərqərar olundu, qeyri-qanuni silahlı dəstələr tərksilah edildi. Bir sözlə, Azərbaycan inkişaf yoluna qədəm qoydu”.

Tarixdən yaxşı məlumdur ki, əgər dövlətin, xalqın strateji, perspektiv mənafeyi baxımından onun daxili və xarici siyasətinin ümumiləşmiş konsepsiyasını müəyyən edə bilən şəxsiyyət yoxdursa, bu mənafeyi beynəlxalq forumlarda, yüksək tribunalardan müdafiə edə bilən, dövlətin strateji xəttini xalqa sadə şəkildə bəyan edən və dövlətçiliyi ümumxalq işinə çevirməyi, xalqı öz arxasınca aparmağı bacaran şəxsiyyət yoxdursa və nəhayət, dövlətçiliyi qorumağı, onun müdafiəsini təşkil etməyi əməli sürətdə həyata keçirən praktik siyasətçi-diplomat, sərkərdə və komandan yoxdursa, daxildə əmin-amanlığı, ölkənin iqtisadi inkişafını təmin etməyi üzərinə götürə bilən qurucu, yaradıcı təsərrüfat rəhbəri yoxdursa, həmin ölkənin gələcəyindən nikbin ruhda danışmaq çətin olar.

Dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə malik olan Heydər Əliyevin müdrik daxili və xarici strateji kursu ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial və psixoloji böhran və sarsıntılardan çıxararaq, müstəqilliyin əbədi yolu ilə inamla irəliləməsi üçün möhkəm zəmin yaratdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi (20 sentyabr 2004-cü il ) “Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra gedən proseslər, təəssüflər olsun ki, ölkəmizi uçurum kənarına gətirmişdi. Sosial – iqtisadi, siyasi, hərbi böhran hökm sürürdü. Azərbaycan torpaqları Ermənistanın işğalçı qüvvələri tərəfindən zəbt olunurdu, ölkədə xaos, anarxiya, hərc-mərclik mövcud idi, vətəndaş müharibəsi başlamışdı. O illərdə baş verən iqtisadi tənəzzül ölkəmizi çox çətin vəziyyətə salmışdı.

Daxili çəkişmələrə son qoyulması, siyasi sabitliyin təmin olunması, atəşkəs haqqında razılaşma əsasında erməni təcavüzünün dayandırılması, «Əsrin müqaviləsi»nin bağlanması, balanslaşdırılmış xarici siyasət və qonşu dövlətlərlə münasibətlərin normallaşdırılması bütün diqqəti ölkədə çoxdan yığılıb qalmış və yatmış vulkana bənzəyən daxili sosial-iqtisadi problemlərin həll olunmasına yönəltməyə imkan verdi. Həyat isə bütün kəskinliyi ilə tələb edirdi ki, heç bir ölkənin tarixində rast gəlinmədiyi strateji əhəmiyyətli üç taleyüklü vəzifə eyni zamanda yerinə yetirilsin:

1. Müstəqil, demokratik, hüquqi dövlətin yaradılması və inkişaf etdirilməsi.
2. İnzibati-amirlik sistemi ləğv edilərək, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olunması.
3. Qapalı sosial-iqtisadi sistemin xaricə açılması və açıq qapı siyasətinin tətbiq edilməsi ilə bərabərhüquqlu dövlət kimi qlobal iqtisadi sistemə inteqrasiya edilməsi.

Bu tarixi vəzifələrin hər biri istənilən bir dövlət üçün kifayət qədər ciddi və əhəmiyyətli idi və bütün qüvvələrin bu məqsədlərə səfərbər edilməsini tələb edirdi.

Totalitar sosialist sisteminin süqutu nəticəsində yaranmış yeni müstəqil dövlətlər qarşısında duran problemlərin orijinallığı və tarixdə mövcud olmuş iqtisadi sistemlərin heç birində analoqu olmaması dünya iqtisadi və siyasi ədəbiyyatına bu ölkələrin real durumunu və perspektivlərini əks etdirən yeni bir termin «keçid iqtisadiyyatı ölkələri» terminini də gətirdi. «Keçid» anlayışı yalnız iqtisadi termin deyildir və cəmiyyətin bütövlükdə mövcud siyasi, iqtisadi və sosial quruluşundan imtina edildiyi və hələlik yenisinin yaradılmadığı bir vəziyyəti ifadə edir, cəmiyyətin sosial-iqtisadi strukturunun transformasiya prosesində olduğunu göstərir. Problemin çətinliyi bir də onda idi ki, totalitar rejimin 70 illik despotik hakimiyyəti dövründə cəmiyyət demokratiya, sərbəst bazar iqtisadiyyatı, azad sahibkarlıq, siyasi plüralizm və bu kimi digər çağdaş dəyərlərdən uzaq məsafədə saxlanılmışdır, üstəlik əhalidə uzun illər boyu xüsusi mülkiyyət, bazar iqtisadiyyatı, sahibkarlıq anlayışlarına mənfi münasibət formalaşdırılmışdır. Həyat isə bütün kəskinliyi ilə tələb edirdi ki, cəmiyyət «dövlət, demokratiya, millət, kimlik, ideologiya, siyasət və iqtisadiyyat kimi həyati əhəmiyyətli məsələlərin yeni dən qurulmasını bir vəzifə kimi qarşıya qoysun» və uğurla həll etsin.

Akademik Ramiz Mehdiyevin göstərdiyinə görə: ” 1993-cü ilin ortalarında, Heydər Əliyev ölkəyə rəhbərliyə qayıtdıqdan sonra milli transformasiyanın dördüncü mərhələsi başlandı – modernləşdirmə mərhələsinə başlamağın əsası qoyuldu. Onun mahiyyəti Azərbaycanın tənzimlənən bazar iqtisadiyyatına keçməsində və demokratik islahatların həyata keçirilməsində idi ki, bu da beynəlxalq aləmdə ölkənin dünya siyasətinin subyekti kimi tanınması ilə nəticələndi”.

Ölkəmizdə müstəqil, demokratik, hüquqi dövlətin möhkəm təməli Heydər Əliyevin memarlığı ilə 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ilə qoyuldu.

Konstitusiya bütün dünyaya bir daha bəyan etdi ki, sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək dövlət hakimiyyətinin yeganə mənbəyi olan Azərbaycan xalqının suveren hüququdur; insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir.

Müstəqillik əldə etmiş dövlətlərin təcrübəsi göstərir ki, suveren sosial-iqtisadi inkişafın müvəffəqiyyəti, ilk növbədə, iqtisadi müstəqilliyin təmin olunmasından və köhnə iqtisadi sistemin düşünülmüş şəkildə yenisi ilə əvəz olunmasından asılıdır. Ona görə də Konstitusiyada birmənalı şəkildə təsbit edilmişdir ki, təbii ehtiyatlar hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına məxsusdur; Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir; Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir. Bütün bunlar əsasında Azərbaycan dövləti xalqın və hər hansı bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır; mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur.

Doğma Azərbaycan dövlətinin qarşısında duran ali məqsədə nail olunması, ilk növbədə iqtisadi sabitliyin də təmin olunmasını tələb edirdi. Çünki 1992-1994-cü illərdə mövcud olmuş hiperinflyasiya iqtisadiyyatın əsaslarını sarsıdır və əhalinin maddi və sosial vəziyyətini getdikcə ağırlaşdırırdı. Birmənalı şəkildə aydın idi ki, həyata keçirilən iqtisadi siyasətin müvəffəqiyyəti genişmiqyaslı sabitləşdirmə tədbirləri ilə inflyasiyanın cilovlanmasından və makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin olunmasından asılıdır. Həyat bütün kəskinliyi ilə iqtisadi islahatların da sürətləndirilməsini tələb edirdi. Ona görə də ölkə iqtisadiyyatında bazar prinsiplərinin bərqərar olmasını təmin etmək üçün onun liberallaşdırılması istiqamətində radikal addımlar atıldı. 1994-1995-ci illərdə xarici ticarət əməliyyatlarının liberallaşdırılmasına başlanmışdır. Xarici ticarət sahəsində liberallaşdırma tədbirlərinin önə çəkilməsi qısa bir zamanda açıq qapı siyasətinin tətbiq edilməsi zərurətindən doğurdu.

İqtisadi liberallaşdırma qiymət islahatlarının da radikal şəkildə davam etdirilməsini tələb edirdi. Bununla əlaqədar olaraq 1995-1996-cı illərdə qiymətlərin formalaşması prosesinin inzibati-amirlik sisteminin qalıqlarından azad olunması başa çatdırıldı. Bununla da bazar iqtisadiyyatının əsas prinsiplərindən birinin, yəni qiymətlərin bazarda sərbəst şəkildə tələb və təklif amillərinin qarşılıqlı təsiri altında formalaşması prosesinin başlanması üçün yol açılmış oldu. Bu proses bazar iqtisadiyyatının digər vacib elementi olan valyuta rejiminin sərbəstləşdirilməsi prosesi ilə tamamlandı.

Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli iqtisadi islahatlar az bir zamanda geniş beynəlxalq dəstək aldı. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı həmin islahatlara dəstək verməyə başladılar. Onlar Azərbaycanda iqtisadi islahatlar haqqında xüsusi proqram hazırladılar və ölkəmizə maliyyə yardımı göstərdilər. Həmin təşkilatlarla sıx əməkdaşlıq şəraitində hazırlanmış sabitləşdirmə proqramına uyğun olaraq iqtisadiyyatın liberallaşdırılmasına yönələn radikal islahatlar dönməz xarakter aldı. Sərt və çevik pul-kredit, büdcə, vergi gömrük siyasətinin aparılması, qiymətlərin, xarici iqtisadi fəaliyyətin və valyuta bazarının liberallaşdırılması və xarici kapitalın cəlb olunması nəticəsində qısa zamanda (1995-1996-cı illər) ölkədə makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin edilməsinə nail olundu. Əgər 1994-cü ildə inflyasiya tempi 1800%-ə, manatın ABŞ dollarına nisbətən dəyərsizləşməsi 1200%-ə çatmışdırsa, artıq 1995-ci ildə vəziyyət əsaslı dəyişməyə başlamış və həmin göstəricilər uyğun olaraq 84, 6% və 3, 6% olmuşdur. Sonrakı illərdə bu göstəricilər daha da yaxşılaşmış, 1996-cı ildə inflyasiya 6, 8%-ə enmiş, manatın isə ABŞ dollarına nisbətən məzənnəsi 8% möhkəmlənmişdir. 1997-ci ildə inflyasiya tempi minimuma enərək cəmi 0, 4% təşkil etmiş, manatın dəyəri isə 5,1% möhkəmlənmişdir. Bu sabitlik dünya maliyyə bazarlarında baş vermiş maliyyə böhranına baxmayaraq 1998-ci ildə də qorunub saxlanılmış, 7,6% səviyyəsində deflyasiya baş vermiş, manatın ABŞ dollarına nisbətən məzənnəsi isə devalvasiyaya uğramamış, sabit olaraq qalmışdır.

İstehlak qiymətlərinin indeksi kəskin şəkildə azaldılmağa başladı. Belə ki, mallar və xidmətlər üzrə qiymət indeksi 1994-cü ildə özündən əvvəlki ilə nisbətən 1763, 5%, 1995-ci ildə 511, 8%, 1996-cı ildə 119, 9%, 1997-ci ildə 103, 7% və 1998-ci ildə isə 99, 2% təşkil etmişdir.

1995-96-cı illərdə yaranmış əlverişli makro-iqtisadi sabitlik şəraitindən istifadə edərək 1997-1998-ci illərdə ölkədə iqtisadi islahatların yeni mürəkkəb mərhələsinə – struktur islahatlar mərhələsinə-başlandı. Xüsusi Dövlət proqramına uyğun olaraq ölkədə genişmiqyaslı özəlləşdirməyə başlanmış, iqtisadiyyatın əsas sahələrindən olan aqrar sferada torpağın xüsusi mülkiyyətə verilməsi istiqamətində radikal islahatlar aparılmış, yeni iqtisadi tələblərə cavab verən maliyyə sektorunun, onun vacib hissəsi olan bank sisteminin formalaşdırılması, dövlət banklarının yenidən qurulması istiqamətində radikal addımlar atılmışdır.

İqtisadi islahatların mühüm istiqamətləri kimi ölkədə özəlləşdirmə proqramının həyata keçirilməsi azad sahibkarlığın və şəxsi təşəbbüskarlığın inkişafına şərait yaratmışdır. Qeyd etmək lazımdır ki, 1998-ci ilə qədər 28 mindən çox kiçik müəssisə özəlləşmiş və demək olar ki, kiçik özəlləşdirmə başa çatmışdı. 1997-ci ildən başlayaraq özəlləşdirmədə həlledici mərhələ olan böyük özəlləşdirməyə – orta və iri dövlət müəssisələrinin səhmdar cəmiyyətlərinə çevrilməsi prosesinə başlanmışdır. Təkcə 1998-ci ildə 800-dən çox orta və iri dövlət müəssisələri səhmdar cəmiyyətlərə çevrilmişlər.

Beləliklə, ölkədə makromaliyyə sabitliyinin təmin edilməsinin, bazar münasibətlərinin formalaşdırılmasının əsas şərti olan iqtisadiyyatın idarə olunmasının bütün istiqamətlərdə liberallaşdırılmasının, bazar iqtisadiyyatının bütün atributlarının yetişməsinə iqtisadi və hüquqi islahatlar aparılması yolu ilə zəruri mühitin yaradılmasının və əsaslı struktur islahatlarının aparılmasının məntiqi nəticəsi olaraq 1989-cu ildən sonra davam edən iqtisadi tənəzzül dayandırıldı və Ümumi Daxili Məhsulun həcminin aşağı düşməsinin qarşısı alındı.

Reallıqlar göstərir ki, iqtisadi tənəzzülün qarşısı nəinki alınmış, hətta 1996-cı ildə onun artımına nail olunmuşdur. 1996-cı ildən 1, 3% olan iqtisadi artım 1997-ci ildə 5, 8%-ə çatmışdır. Real sektordakı bu canlanma Cənub-Şərqi Asiyada və qonşu Rusiyada baş vermiş dərin maliyyə böhranına baxmayaraq 1998-ci ildə daha da inkişaf etmişdir. 1998-ci ilin yekunları respublikanın sosial-iqtisadi inkişafında müsbət meyllərin ildən-ilə möhkəmləndiyini, bu prosesin dönməz xarakter almasını göstərir. Az bir zamanda Azərbaycan iqtisadi inkişafın artım sürətinə görə postsovet respublikaları arasında qabaqcıl mövqeni tutmağa və lider olmağa başladı.

Azərbaycanda iqtisadi artım sürəti 1995-ci ildən başlayaraq MDB üzrə orta göstəricidən xeyli yüksək olmuşdur.

Deyilənləri yekunlaşdıraraq göstərmək lazımdır ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilən strateji kurs Azərbaycanı qlobal zirvələrə doğru gedən ölkələr qrupunda öncül mövqeyə çıxarmışdır. Ölkənin inkişaf səviyyəsində ciddi kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermiş və verməkdə davam edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərdiyi (10 may 2004-cü il) kimi: "Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan beynəlxalq təcriddən çıxdı. Bu gün Azərbaycan beynəlxalq aləmdə çox görkəmli yer tutur, beynəlxalq təşkilatların üzvüdür, onlarda fəal iştirak edir. Bütün dövlətlər tərəfindən tanınır. Azərbaycanın böyük hörməti var. Artıq demək olar ki, regional məsələlərdə Azərbaycanın sözü həlledici sözdür. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir regional layihə həyata keçirilə bilməz. Beləliklə, Azərbaycan region üçün mərkəzə çevrilibdir. Bizim nüfuzumuz artır, gücümüz artır. Bu, bizə imkan verəcək ki, qarşımızda duran bütün məsələləri öz xeyrimizə həll edək. Bütün bunlar Heydər Əliyevin xidmətləridir".

İqtisadi inkişaf səviyyəsi yaxın perspektivdə daha da yüksələcəkdir. İqtisadi inkişaf sürətinin dünyada analoqu olmayan səviyyəsi Azərbaycanın bir çox inkişaf parametrlərinə görə inkişaf etmiş ölkələrlə arasında olan fərqin azalmasına gətirib çıxaracaqdır. Möhkəm iqtisadi təməl demokratik proseslərə dinamizm qazandırmış, əhalinin sosial-rifah halının daha da yaxşılaşdırılması üçün geniş perspektivlər açmışdır.

Beləliklə, iqtisadi inkişafın tarixdə analoqu olmayan Azərbaycan modelinin formalaşması və inkişafı nəticəsində uzunmüddətli perspektivdə Azərbaycanın sosial-iqtisadi inkişaf trayektoriyası yüksək dərəcədə perspektivlidir.

Belə ki:

1. İnzibati-amirlik sistemi ləğv edilərək bazar iqtisadiyyatı prinsipləri bərqərar olmuşdur.
2. Müstəqil, demokratik, hüquqi dövlətin əsasları qoyulmuş və ölkə yüksək inkişaf mərhələsinə daxil olmuşdur.
3. Transformasiya prosesi uğurla aparılmış və özünün son mərhələsinə qədəm qoymuşdur.
4. Qapalı sosial-iqtisadi sistem xaricə açılmış və «açıq qapı» siyasətinin tətbiq edilməsi nəticəsində bərabərhüquqlu dövlət kimi qlobal iqtisadi sistemə inteqrasiya prosesi sürətlənmişdir.
5. Xarici kapital geniş miqyasda cəlb edilərək, resurs amillərindən intensiv istifadə edilir.
6. Ölkədə yaradılmış yeni imkanlar daxili mənbələrin hərəkətə gətirilməsi, iqtisadiyyatın strukturunun yenidən qurulması, informasiya texnologiyalarının sürətli inkişafı və bütün sahələrdə modernləşdirmə xəttinin həyata keçirilməsi məqsədlərinə xidmət edir və bu sahədə ciddi irəliləyişlər mövcuddur.
7. Həyata keçirilən qlobal əhəmiyyətli infrastruktur layihələri Azərbaycanın Avrasiya məkanında mərkəzi nəqliyyat dəhlizinə çevrilməsi üçün geniş imkanlar yaratmışdır.
8. Siyasi müstəqillik iqtisadi müstəqilliklə möhkəmləndirilmişdir. Ölkə tam müstəqil və balanslaşdırılmış iqtisadi siyasət yeritməklə ölkənin milli təhlükəsizliyini və onun mühüm tərkib hissələri olan iqtisadi, enerji və ərzaq təhlükəsizliyini qısa zaman kəsiyində təmin edə bilmişdir.
9. Ölkə qısa tarixi dövr ərzində kapital idxal edən ölkədən ixrac edən ölkəyə, təbii qaz idxal edən ölkədən ixrac edən ölkəyə çevrilmiş, bir çox həyati əhəmiyyətli məhsullarla öz ehtiyaclarmı təmin edir.
10. Ölkənin əlverişli geosiyasi vəziyyətindən məharətlə istifadə edilməsi Azərbaycanın regionda lider dövlətə çevrilməsinə və qabaqcıl dünya dövlətləri arasında mövqenin möhkəmləndirilməsinə səbəb olmuşdur.

Yaradılmış möhkəm iqtisadi təməl siyasi və sosial-mədəni proseslərə də dinamizm verir, Azərbaycanın "mənliyinin dünya miqyasında təsdiq edilməsinə imkan yaradır".

Sürətli iqtisadi inkişaf Azərbaycanın beynəlxalq aləmdə diqqət mərkəzində olmasını təmin etmişdir. Bütün dünyanı sarsıdan qlobal böhran zamanı ölkəmizdə iqtisadi artım sürətinin 9,3% səviyyəsində olması Azərbaycanın milli iqtisadi inkişaf modelinin, onun perspektivli inkişaf trayektoriyasının uğurlu olduğunu əyani şəkildə bir daha sübut etdi. Mürəkkəb böhran dövründə Azərbaycan modelinin uğurunun sirrini cənab İlham Əliyev özü belə izah edir: istehlak qiymətlərinin aşağı salınmasının vacibliyi və inflyasiyaya nəzarət; milli bankların dəstəklənməsi də daxil olmaqla maliyyə monitorinqi, kreditlərə və faiz dərəcələrinə nəzarət; təkcə neft sektoruna deyil, real iqtisadiyyata daimi sərmayə axınının təmin edilməsi; sosial öhdəliklərin qətiyyətlə yerinə yetirilməsinə yönəldilmiş siyasət; sənaye müəssisələrinin fəaliyyət istiqamətinin daxili bazara yönəldilməsi; ərzaq təhlükəsizliyi probleminə daimi nəzarət və sair.

Heç bir şübhə yoxdur ki, keçid dövrünü başa çatdırmış Azərbaycan iqtisadiyyatı bundan sonra daha böyük uğurlar qazanacaqdır.

**«Vergi xəbərləri»**.-2010.-№4.-S.26-32.

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AQRAR SİYASƏTİ

**Asif ŞİRƏLİYEV,**
Naxçıvan Dövlət Universitetinin iqtisad fakültəsinin dekanı,
iqtisad elmləri doktoru, professor

**Xalqımızın ümummilli lideri Heydər Əliyev nəinki böyük dövlət xadimi, dünya miqyaslı siyasətçi, həm də böyük nəzəriyyəçi idi. Bu dahi şəxsiyyət qeyri-adi zəkası sayəsində ictimai həyatın bütün sahələrinə nüfuz etməyi bacarırdı. Bunu onun aqrar bölmənin inkişafı və tərəqqisi nəzəriyyəsindən də görmək olar. Bu nəzəriyyə Heydər Əliyevin əsərlərində, sərəncam və nitqlərində, habelə müəllifi və rəhbəri olduğu sosial-iqtisadi inkişaf proqramlarında və çıxışlarında öz əksini tapıb** Ümummilli lider nəinki sovet dövrünün, həmçinin, sosial təsərrüfat sistemindən bazar iqtisadiyyatına keçid dövrünün və bazar iqtisadi sisteminin aqrar nəzəriyyəsi və aqrar siyasətinin müəllifidir. Ulu öndərin aqrar nəzəriyyəsi və aqrar siyasətində torpaq, ona xas olan münasibətlər, bütövlükdə aqrar baxışları, ərzaq proqramı, əhalinin ərzaqla təminatı istiqamətləri öz əksini tapmışdır. Bu nəzəriyyə və siyasət, eyni zamanda, ölkəmizin bazar iqtisadiyyatına keçid və bazar şəraitində aqrar məsələlərin həllini də şərtləndirir. Bundan başqa, onun aqrar nəzəriyyəsi və aqrar siyasətində aqrar iqtisadiyyatın kompleks inkişafı məsələləri də dərindən və tam əks edilmişdir.

Bunu da nəzərə almaq lazımdır ki, ulu öndərin aqrar nəzəriyyəsi və aqrar siyasətinin təşəkkülü və formalaşması hələ keçmiş SSRİ-nin mövcud olduğu bir şəraitində – çox çətin bir zəmində başlanmışdır. Heydər Əliyev hakimiyyəti dövründə bu nəzəriyyənin və siyasətin tam işlənib hazırlanmasını diqqət mərkəzində saxlamışdır. Bütövlükdə, ümummilli liderin aqrar nəzəriyyəsi və aqrar siyasəti ölkəmizdə əhalinin ərzaqla təminatı, ərzaq idxalının tamamilə aradan qaldırılması və digər mühüm məsələləri nəzərdə tutur.

Eyni zamanda, ümummilli liderin aqrar siyasətində kənd təsərrüfatının, bütünlükdə aqrar-sənaye kompleksinin qarşısında duran sosial-iqtisadi məsələlərin həlli ilə yanaşı, onların həyata keçirilməsi istiqamətləri, imkanları, yolları və mənbələri də təsnifləşdirilmiş, onların konkret vəzifələri müəyyən edilmişdir. Bu mənada ümummilli lider Heydər Əliyevin aqrar siyasəti öz elmi-nəzəri, metodoloji imkanı, səviyyəsi və dərinliyinə görə müstəqil nəzəriyyə olması, əsasları və sübutları ilə fərqlənir.

Ümummilli lider özünün aqrar siyasətinə əsaslanan istiqamətləri həyata keçirərkən belə bir tələbi qarşıya qoymuşdur: Kənddə yaşayan hər kəs ixtisas və peşəsindən asılı olmayaraq torpaq payı almalıdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra bu tələb ulu öndərin səyi ilə reallaşdırılmışdır. Aqrar islahatı nəticəsində hər kəs və hamı torpaq payı almış, fiziki və hüquqi şəxs kimi kəndli-fermer təsərrüfatı yarada bilmişdir. Bu ümummilli lider Heydər Əliyevin aqrar siyasətinin real olaraq həyata keçirilməsi kimi qiymətləndirilməlidir.

Aqrar bölmədə bazar iqtisadiyyatı prinsiplərinə əsaslanaraq, bazarın məna və mahiyyətinə uyğun olaraq əməyin təşkili və idarəedilməsi formalarının təşəkkülü öz mahiyyəti etibarilə ümummilli liderin aqrar siyasətinin tələblərinin reallaşdırılmasının praktiki sübutudur. Belə ki, hazırda əkinçilik və heyvandarlıq sahələrdə müxtəlif təsərrüfatçılıq formaları qərarlaşmışdır.

Bundan başqa, ümummilli liderin aqrar nəzəriyyəsi və aqrar siyasətində ölkə əhalisinin ərzağa və emal sənayesinin xammala olan ehtiyac və tələbi başlıca vəzifə kimi əsaslandırılmışdır. Buna uyğun həmin məsələnin normal icra edilməsi üçün bu kompleksin möhkəmləndirilməsi, daha da inkişaf etdirilməsi, habelə tənzimlənməsi dövlət və onun digər direktiv orqanları qarşısına mühüm vəzifə kimi qoyulmuşdur. Aqrar-Sənaye Komleksinin maddi-texniki bazasının möhkəmləndirilməsi, maşın-mexanizm, enerji-yanacaq məhsullarının qiymətləri ilə kənd təsərrüfatı məhsullarının satış qiymətləri arasındakı uyğunsuzluğu aradan qaldırmaq da başlıca məsələdir. Eyni zamanda, kənddə sahibkarlığa dəstək verilməsi, onun möhkəmləndirilməsi və lazımi səviyyədə fayda verməsi üçün əsaslı tədbirlərin görülüb həyata keçirilməsi vahid aqrar nəzəriyyə və aqrar siyasətin əsas tələblərindən biri kimi irəli sürülmüş və reallaşdırılması müəyyənləşdirilmişdir.

Ölkəmizdə kənd təsərrüfatı məhsullarının bəzi növlərinin istehsalının stimullaşdırılmasının daha da gücləndirilməsi və aqrar bölmənin özünün də diversifikasiyası – şaxəliliyi məsələsi də ulu öndərin aqrar siyasətinin ən zəruri tələblərindən birini təşkil edir.

Bundan başqa, kənd təsərrüfatında sahibkarların kreditləşdirilməsi, onlara aşağı faizlə kredit verilməsi istehsalın maddi bazasının möhkəmləndirilməsinə, əkinçilik və heyvandarlıq məhsullarının sabit, davamlı və dayanıqlı artımına həlledici təsir göstərir, sahibkarların məhsul istehsalının dinamik inkişafına inamını daha da gücləndirir. Onu qeyd edək ki, bu tətbiq olunan siyasətin başlıca tələblərindən biridir.

Qeyd etmək lazımdır ki, əkinçilik və heyvandarlıq məhsulları istehsalçılarının sığortalanması, kənd təsərrüfatı məhsullarının idxalı üzrə gömrük rüsumlarının təkmilləşdirilməsi məsələləri də ümummilli liderin aqrar siyasətində öz əksini əsaslı şəkildə tapmışdır.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətinin hələ birinci dövründə aqrar siyasətin reallaşdırılması üçün mühüm əhəmiyyət kəsb edən qanun, əsasnamə, təlimat, digər normativ-hüquqi sənədlər toplusu işlənib hazırlanmış və həyata keçirilmişdir.

Ümummilli liderin aqrar siyasəti həmişə uğurlu olmuşdur. Belə ki, hələ sovet dövründə Azərbaycan Respublikası keçmiş ittifaqın 11 dəfə keçici qırmızı bayrağını almış, regionlarda 250-dən çox məhsulun emalı, saxlanması müəssisələri yaradılmış, ölkəmizin müstəqilliyi dövründə də bu, dinamik səciyyə daşımışdır.

Hazırda ümummilli lider Heydər Əliyevin aqrar siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə inamla, ardıcıl və uğurla həyata keçirilir. Kənd təsərrüfatı məhsulları istehsalı ildən-ilə çoxalır, aqrar bölmənin dinamik inkişafı təmin olunur, regionların sosial-iqtisadi inkişafı məsələlərinə dair dövlət proqramları qəbul edilərək yerinə yetirilir. Bunun sayəsində ölkə əhalisinin ərzaq buğdası, ət, kartof, meyvə – tərəvəz və bir sıra digər ərzaq məhsullarına olan tələbatı tamamilə daxili istehsalımız hesabına ödənilir.

Ümummilli lider Heydər Əliyevin aqrar siyasəti Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında inamla reallaşdırılır, aqrar məhsulların istehsalı dinamik surətdə artır. Belə ki, 2009-cu ildə Muxtar Respublikada 185,2 milyon manatlıq əkinçilik və heyvandarlıq məhsulları yaradılmışdır ki, bunu da muxtar respublika üçün uğurlu göstərici hesab etmək olar.

**“Xalq qəzeti“.**-2010.-15 avqust.-N 177.-S.3.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN TARİXİ MİSSİYASININ TƏBLİĞİ

**SƏİDƏ QULİYEVA,**
BDU-nun Azərbaycanşünaslıq
Elmi-Tədqiqat Mərkəzinin kiçik elmi işçisi

***Azərbaycan öz coğrafi vəziyyətinə əsasən***
***Qərb sivilizasiyası ilə Şərq sivilizasiyasını – həm coğrafi,***
***həm də məzmun, mənəvi nöqteyi-nəzərdən – birləşdirən bir ölkədir.***
***Biz bu tarixi missiyamızı da çox yüksək qiymətləndiririk.***
***Şərqlə Qərbi, Avropa ilə Asiyanı, xristian aləmi ilə***
***İslam aləmini birləşdirən Azərbaycan müstəqil dövlətdir.***
***HEYDƏR ƏLİYEV***

Sivilizasiya – zəngin ənənələr, qədim mədəniyyət deməkdir. Qədim dövrlərdən Azərbaycan müxtəlif mədəniyyətlərin və dinlərin təsirinə məruz qalmışdır. Məhz bunun nəticəsində tarixən ölkəmizdə müxtəlif dinlərə münasibətdə yüksək dözümlülük və anlaşma mühiti yaranmışdır. Qərb və Şərq sivilizasiyalarını özündə əks etdirən zəngin mədəniyyətimizin formalaşmasına tarixin müxtəlif mərhələlərində atəşpərəstlik, yəhudilik, xristianlıq və islam dinlərinin təsiri olmuşdur.

Mühüm karvan yollarının Qafqazdan – Azərbaycandan keçməsi və burada müxtəlif millətlərin nümayəndələrinin birgə anlaşma şəraitində yaşaması, sivilizasiyaların qovuşmasına böyük təsir göstərmiş, yerli əhalinin birgə yaşaması onlara hörmətlə yanaşması nəticəsində qonaqpərvərlik və digər dəyərlər xalqın yaddaşına həkk olunmuşdur. Böyük İpək Yolu kimi tanınan nəhəng ticarət yolu Şərqlə Qərb arasında təkcə mal mübadiləsi deyil, həm də informasiya və biliklərin, elmi və mədəni ənənələrin mübadiləsinin vasitəçisi olmuşdur.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 1998-ci ildə andiçmə mərasimindəki nitqi zamanı Böyük İpək Yolunun əhəmiyyətini xüsusi qeyd etmişdir: «…Böyük İpək Yolu orta əsrlərdə artıq öz fəaliyyətini dayandırdığı dövrdən indiyə qədər ilk dəfə Bakıda, …tarixi qərarlar qəbul olunmuşdur. Böyük İpək Yolunun bərpası ilə əlaqədar Bakı bəyannaməsi və müqavilələr imzalanmışdır. Bu, bizim üçün tarixi hadisədir, eyni zamanda Azərbaycanın Şərq ilə Qərbi, Avropa ilə Asiyanı birləşdirməsi üçün çox gərəkli olduğunu göstərir və Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi fəaliyyətlərinin nəticəsini göstərir» (8).

Müstəqillik illərində Böyük İpək Yolunun yenidən bərpasının əhəmiyyətini və Azərbaycanın tarixi missiyasının formalaşmasındakı rolunu isə bu cür qiymətləndirmişdir: «…Karvan yollarının üstündə yerləşərək, Böyük İpək Yolunun mühüm mərkəzlərindən biri olmuş Azərbaycan, müxtəlif siyasi baxışların, iqtisadi münasibətlərin, dövlətçilik formalarının təsirini öz üzərində hiss etmişdir… Avropa ölkələri ilə münasibətlərin inkişafında Qədim İpək Yolunun bərpasını nəzərdə tutan «TRASEKA» proqramının həyata keçirilməsinə başlanması mühüm yer tutur. Bu nəhəng nəqliyyat dəhlizinin mərkəzində yerləşən ölkə kimi, Azərbaycan Şərqlə Qərbin qovuşmasında mühüm rol oynayır…» (2).

Görkəmli siyasi və dövlət xadimi Heydər Əliyev Şərqlə Qərbin arasında yerləşən Azərbaycanın strateji mövqeyindən istifadə edərək, iqtisadi, siyasi, elmi və mədəni körpü rolunun qorunmasına və əməkdaşlığın genişləndirilməsinə çalışmışdır. «İslam sivilizasiyası Qafqazda» mövzusunda beynəlxalq simpoziumun açılış mərasimindəki nitqində demişdir: «Azərbaycan öz coğrafi vəziyyətinə əsasən Qərb sivilizasiyası ilə Şərq sivilizasiyasını – həm coğrafi, həm də məzmun, mənəvi nöqteyi-nəzərdən – birləşdirən ölkədir. Biz bu tarixi missiyamızı da çox yüksək qiymətləndiririk. Şərqlə Qərbi, Avropa ilə Asiyanı, xristian və İslam aləmini birləşdirən Azərbaycan müstəqil dövlətdir…» (3, c. 18, s. 363). Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində isə bu məsələləri vurğulayaraq, ölkəmizin tarixi missiyasını qoruması siyasətində müstəqil olduğunu bəyan etdi (2).

«…Biz öz ölkəmizdə, öz xalqımızın tarixində, milli mədəniyyətində, tarixi köklərində və mentalitetində Şərqlə Qərbin, Avropa ilə Asiyanın sintezini təşkil edirik. Ona görə də öz tarixi missiyamızı dərk edirik və bunu həyata keçirmək üçün indiyə qədər lazımi işlər görmüşük…» (8). Bununla yanaşı, Heydər Əliyev tarixi ənənələri olan birgə qarşılıqlı anlaşma şəraitində yaşamanın qorunması və inkişafı məqsədilə bir sıra qanunlar imzalamış, Azərbaycanda dini etiqad azadlığını təmin etmək istiqamətində xeyli iş görmüş, müxtəlif dinlərin nümayəndələrinə ayin və mərasimləri yerinə yetirmək üçün geniş şərait yaratmışdır: «…başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq islam dəyərlərinin xüsusiyyətidir. Bu, tarix boyu Azərbaycan-da da, Qafqazda da öz əksini tapıbdır. Azərbaycanda islam dini ilə yanaşı, xristian

və yəhudilik də əsrlər boyu yaşayıb və indi də yaşayır. Qafqazda da bu mənzərə var. Hesab edirik ki, insanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bü-tün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, o dinlərin bəzən kiməsə xoş gəlməyən adət-ənənələrinə dözümlü olmalıdırlar. Dini nöqteyi-nəzərdən ədavət, münaqişə, müharibə yolverilməzdir… dünyada belə hallara son qoyulmalıdır…» (3, c. 18, s. 349-363).

Heydər Əliyev bu bəyanatı ilə bütün sivilizasiyaları dialoqa, dözümlülüyə çağırmışdır. Çünki islamın yarandığı ərazi digər dinlərin də vətəni olmuşdur. Hazırda da islam ölkələrində digər dinlərin nümayəndələri sərbəst yaşayırlar. Bu, dinimizin tolerantlıq ənənələridir. Digər dinlərə qarşı dözümlü və anlaşma ilə yanaşan islam ölkələri dövlət siyasətlərində, milli maraqlarını qorumaq şərtilə, dini birlik nümayiş etdirməlidirlər. Bununla da qloballaşma prosesində özlərini kənar təzyiqlərdən qoruyar və qarşı tərəfləri sivilizasiyalararası dialoqa cəlb edə bilərlər. Sivilizasiyaların dialoqunu yaratmaq və qorumaq üçün elmi əsaslar üzərində qurulmuş ümumdünya hərəkatı olmalıdır. Ümummilli Lider 1998-ci ildə Bakıda keçirilən «Müasirlik və dini-mənəvi dəyərlər» mövzusunda Beynəlxalq konfrans iştirakçılarına müraciətdə bu sahədə elmi tədqiqatların aparılmasının əhəmiyyətini bu cür qeyd etmişdir: «…Müsəlman alimləri və din xadimlərinin dinimizin mühüm aktual problemlərini müzakirə etməsi sırf elmi-dini əhəmiyyəti ilə yanaşı, müsəlman dövlətləri və xalqları arasında qardaşlıq və əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə, islam həmrəyliyinin daha da möhkəmlənməsinə xidmət edir…» (3, c. 17, s. 389-390). Bütün cəmiyyətlərin, dövlət orqanlarının bu hərəkatda iştirak etməsinin faydasını isə belə bildirmişdir: «…dövlət işləri ilə məşğul olan insanlar Azərbaycanda, tək Azərbaycanda yox, bütün ölkələrdə sizin konfransın verdiyi tövsiyələrdən istifadə edərək cəmiyyətimizdə mənəviyyatı daha da yüksəltməyə nail ola biləcəyik…» (3, c. 17, s. 396).

Beynəlxalq qurumların, dövlət və qeyri-hökumət təşkilatlarının bu cür tədbirlərdə iştirakı, onların sivilizasiyalararası dialoqa xidmətlərinə birbaşa imkan yaradır. Belə tədbirlərin beynəlxalq təşkilatlar tərəfindən təşkil olunması sivilizasiyaların dialoqunun gerçəkləşməsi üçün əhəmiyyətlidir.

Azərbaycanın fəal üzvlərindən olduğu İslam Konfransı Təşkilatının (İKT) fəaliyyətinə nəzər salsaq, təşkilatın bu sahədə uğurlu siyasət yürütdüyünün şahidi olarıq.

1999-cu ildən başlayaraq, İKT-yə üzv dövlətlərin iştirakı ilə sivilizasiyalararası dialoq üzrə forumlar keçirilməyə başlanmışdır. Bu forumlarda islam prinsiplərindən faydalanaraq sivilizasiyalararası dialoqun elmi əsasları təhlil edilir. Qeyd edək ki, İran İslam Respublikasının sabiq prezidenti Seyid Məhəmməd Hatəminin təklifilə İKT-nin müraciəti əsasında BMT Baş Assambleyasının 53/22 saylı qətnaməsilə 2001-ci il «Sivilizasiyalararası dialoq» ili elan olunmuşdur.

Daim Qərbi islam dünyası ilə barışa çağıran İKT-nin Baş katibi (2004-cü il-dən) Ekmələddin İhsanoğlu bildirmişdir: «…dözümlülük və qarşılıqlı anlaşma birgə yaşamaq üçün dinlərarası, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun milli, regional və beynəlxalq səviyyədə həyata keçirilməsinə zəmin yaradır…» (6).

İKT-nin konfranslarında və təşkil etdiyi beynəlxalq tədbirlərdə dinlər və mədəniyyətlərarası dialoq, müasir bəşəriyyətin qlobal problemlərinin həllində əməkdaşlıq və bu kimi məsələlərin tez-tez səsləndiyinin şahidi oluruq. Vahid siyasətin müəyyənləşdirilməsi və həyata keçirilən tədbirlərə nümunə olaraq, son konfranslardan birinin fəaliyyətinə diqqət yetirmək kifayətdir: İKT Parlament İttifaqının IX sessiyasında (2007, 11 fevral, Malayziya) Qərb dövlətlərilə parlamentlərarası əlaqələrin genişlənməsi istiqamətində tədbirlər müəyyənləşdirilmiş, mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun inkişaf etdirilməsi məqsədilə hökumət və digər təsisatlarla əməkdaşlıq üçün parlamentlərdə əsas dialoq mərkəzinin, həmçinin mədəniyyətlər və sivilizasiyalar arasında dialoq üzrə mərkəzlərin və institutların yaradılması məqsədilə bəzi islam dövlətlərinin təşəbbüslərinin koordinasiyası, Qərb ölkələrində islami dəyərlərə obyektiv baxışın formalaşdırılması məqsədilə İslam ölkələrində xarici dillərdə televiziya verilişlərinin hazırlanıb Qərbdə yayımlanması istiqamətində fikir mübadiləsi aparılması barədə qərarlar qəbul edilmişdir. Sivilizasiyalar, mədəniyyətlər və dinlərarası dialoqun dünyada sülhün bərqərar olunması yolunda yeganə vasitə olması, qəbul edilmiş qətnamədə xüsusi vurğulanmışdır.

Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, həmçinin beynəlxalq təşkilatların, ölkəmizin bir sıra elm mərkəzlərinin respublikamızda təşkil etdiyi dövlət və din siyasəti, dözümlülük, sivilizasiyalararası dialoq, milli azlıqlara həsr olunmuş çoxsaylı konfranslara və beynəlxalq tədbirlərə dünyanın əksər ölkələrindən nümayəndələrin dəvət olunması ölkəmizdə bu sahədə tədqiqatların aparılması üçün zəngin baza olduğunu, Azərbaycan modelinin təbliğinin və öyrənilməsinin zərurətini göstərir. Bu proseslər Heydər Əliyevin həm Azərbaycanın dövlət qurumları, həm də dünyanın elmi mərkəzləri qarşısında müəyyən etdiyi proqramın, vəzifələrin icrasının nəticəsidir.

Heydər Əliyev, İslam təhsil, elm və mədəniyyət təşkilatı (İSESKO, Rabat) və İslam, incəsənət, tarix və mədəniyyət tədqiq mərkəzi (İRKİKA, İstanbul), həmçinin şərq dünyasının digər mədəni mərkəzləri ilə Azərbaycanın müvafiq strukturların (AMEA-nın Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu və s.) arasında əlaqələrin genişləndiril-məsinin vacibliyini vurğulamış, bu əlaqələrin islam dünyasının zəngin irsinin, tarixinin və mədəniyyətinin öyrənilib təbliğ olunmasında mühüm rol oynayacağını qeyd etmişdir. O, İKT-nin İslam, Tarix, Sənət və Mədəniyyət Mərkəzində olarkən, (İstanbul, 1997) Azərbaycanda da elmi tədbirlərin keçirilməsini və əməkdaşlığın yaradılması təşəbbüsünü irəli sürmüşdür. Heydər Əliyev 12 dekabr 1998-ci ildə Bakıda keçirilmiş "İslam sivilizasiyası Qafqazda" adlı Beynəlxalq simpoziumda sivilizasiyalararası dialoqun zəruriliyi və digər qlobal məsələləri əhatə edən çıxışında Azərbaycanın Qafqazda islamın mərkəzi olduğunu vurğulamış, elmi-tədqiqatların aparılması üçün proqramların hazırlanması məsələlərinə toxunaraq demişdir: «…Ümidvaram ki, simpozium çox dəyərli işlər görəcək və Qafqazda islam sivilizasiyasının rolunu və bu sahədə gələcək elmi-tədqiqat işlərinin proqramlarını müəyyən edə biləcəkdir».

Bu, təkcə Azərbaycan üçün yox, bütün Qafqaz xalqları, bütün İslam aləmi üçün çox əhəmiyyətli işdir» (3, c. 18, s. 349-363). Bu məqsədlə İKT-nin elmi-tədqiqat mərkəzi, Rusiya və Avropanın elmi-tədqiqat mərkəzlərilə əməkdaşlığın əhəmiyyətini vurğulamış, bu əlaqələrin həyata keçirilməsi üçün xüsusi təşkilat və orqanların yaradılmasının zəruri olduğunu qeyd etmişdir (3, c. 18, s. 361).

Bu gün Azərbaycanın sivilizasiyaların dialoqunda iştirakını təhlil edərkən və töhfələrini nəzərdən keçirərkən, həm Qərb dünyası, həm də İslam aləmilə sıx əlaqələrinin və qloballaşma prosesində bu missiyanın həyata keçirilməsində düzgün mövqe tutduğunun şahidi oluruq.

Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev Azərbaycanın sivilizasiyalararası dialoqda rolunun düzgün istiqamətləndirildiyini göstərərək qeyd edir: «Azərbaycan öz coğrafi mövqeyinə, milli-mənəvi dəyərlərinə, demokratik təsisatlarına uyğun olaraq Qərb və Şərq arasında birləşdirici mərkəz rolunu oynayır və bu iki qütb arasında mədəniyyətlərarası ziddiyyətlərin aradan qaldırılmasında, ümumbəşəri dəyərlər əsasında fərqli xüsusiyyətlərin qəbul edilməsində, qarşılıqlı anlaşmaların axtarılmasında öz töhfəsini verir. Siyasi nəzəriyyəçilərin istifadə etdiyi «qavrayış» konsepsiyası xarici siyasət sahəsində psixoloji yanaşma tətbiq edərək, beynəlxalq səhnənin aktyorlarının öz ətraf mühitlərini mədəniyyətlərindən və oynaya biləcək rol haqda düşüncələrindən asılı olaraq dərk etdiklərini önə çəkir. Tamamilə təqdirəlayiq haldır ki, Azərbaycan öz potensialını tam şəkildə qavrayır və hansı sahədə daha səmərəli olacağını dərk edərək, bu gün beynəlxalq sülh və təhlükəsizliyin qorunmasında mühüm rol oynayan sivilizasiyalararası dialoqun möhkəmlənməsini siyasi fəaliyyətin əsas istiqamətinə çevirmişdir» (19, s. 12).

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi (2006, sentyabr), Təhsil Nazirliyi (2007, aprel) və Heydər Əliyev Fondu (2007, may) ilə İSESKO arasında qarşılıqlı əməkdaşlıq haqqında protokollar imzalanmış və bu, əlaqələrin inkişafına böyük təkan vermişdir. Münaqişələrin qarşısının alınmasında, sivilizasiyalararası dialoqun aparılmasında xidmətlərinə görə Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevaya İSESKO-nun xoşməramlı səfiri adı (2006, 24 noyabr) və «Sivilizasiyalararası dialoqa töhfələrinə görə» mükafatı (2007, aprel) təqdim edilmişdir (12).

Son illərdə ardıcıl olaraq İKT-nin müxtəlif tədbirlərinin Azərbaycanda keçirilməsi bir daha ölkəmizin sivilizasiyaların və dinlərin tarixi qovşağı olduğunu və bunun dünya tərəfindən qəbul edildiyini təsdiqləyir. Azərbaycanın sivilizasiyaların qovşağı missiyasını uğurla həyata keçirdiyinin dünya ölkələri tərəfindən yüksək qiymətləndirilməsinə nümunə olaraq, Latın Mədəniyyəti Akademiyasının Heydər Əliyev Fondu ilə birgə keçirdiyi konfransda səslənən fikirləri nəzərdən keçirək: «…Siz dünyəvi bir dövlətsiniz və müxtəlif dinlərin və mədəniyyətlərin birgə yaşamasına nail olmusunuz. Bu, həqiqətən, təqdirəlayiq nailiyyətdir və Azərbaycanı nadir bir ölkəyə çevirir. Siz bu iki geosiyasi xətlərin tarazlaşdırılmasını təmin edə biləcək bir ölkəsiniz. Məhz buna görə Latın Mədəniyyəti Akademiyası slavyanların, türklərin, digər Avrasiya millətlərinin arasında körpü yaratmağa çalışır….Tarixin nə cür, nə məcrada inkişaf etməsinin məhz Azərbaycandan görünüşü bizim üçün vacibdir…» (13).

Prezident İlham Əliyevin islam ölkələrinin Azərbaycanda fəaliyyət göstərən diplomatik nümayəndələrini qəbulu zamanı (2006, 4 noyabr) Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdəki səfiri Əli Həsən Əhməd Cəfər demişdir: «Qərbə inteqrasiya və müsəlman ölkələri ilə yaxın dostluq əlaqələrinin qurulması cəhdləri Azərbaycanın Şərq və Qərb arasında körpü rolunu artırmağa geniş imkanlar açır».

Bu gün Azərbaycanın beynəlxalq təşkilatlarda xüsusi yer tutması, müxtəlif iqtisadi layihələrin həyata keçirilməsi, Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin yaradılması, tarixi İpək yolunun bərpası, BTC kəməri, həmçinin mədəniyyət və idman sahələrində yüksək səviyyəli tədbirlərin təşkil olunması tarixi ənənələrin davamıdır.

Son illərdə Bakıda BMT, İKT, YUNESKO, İSESKO, İKT Dialoq və Əmək-daşlıq Uğrunda İslam Konfransı Gənclər Forumu, «Sivilizasiyaların Dialoqu» Dünya İctimai Forumu, BMT-nin İnkişaf Proqramı, Avropa Şurası kimi beynəlxalq təşkilatların Heydər Əliyev Fondunun birgə təşkil etdikləri «Dözümlülüyün və qarşılıqlı anlaşmanın inkişafında kütləvi informasiya vasitələrinin rolu» (2007, aprel) (6), «Gənclər sivilizasiyaların alyansı naminə» (2007, oktyabr-noyabr) (7), «Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi» (2008, iyun) mövzusunda keçirilən beynəlxalq tədbirlərdə tolerantlıq barədə KİV nümayəndələrinin maarifləndirilməsinin zəruriliyi, İslamın hansı səbəbdən «terrorla» eyniləşdirilməsinə dair araşdırmalar aparılmasının vacibliyi, dinimizin mütərəqqi ideyalarının düzgün təbliğində gənclərin, jurnalistlərin və qadınların rolu, sivilizasiyalar arasındakı fərqlərin ortadan qaldırılması ilə dünyada mövcud problemlərin həllinə kömək göstərilməsi və digər məsələlər barədə bir sıra əhəmiyyətli nəticələr əldə edilmişdir. Bu sahədə İKT-nin Dialoq və Əməkdaşlıq üzrə Gənclər Forumunun fəaliyyətini xüsusi qeyd etmək lazımdır.

İKT-nin 40 illiyi münasibətilə Azərbaycanda keçirilən tədbirlər Bakının 2009-cu il üçün «İslam mədəniyyətinin paytaxtı» elan edilməsilə bağlı digər üzv dövlətlərdə təşkil olunan tədbirlərdən xüsusilə fərqlənmişdir. Ölkəmizdə keçirilən beynəlxalq səviyyəli tədbirlərdə (elmi konfranslar və simpoziumlar, yaradıcılıq sahələrinin təmsil olunduğu sərgilər, tamaşalar və s.) İslam dünyasının və Avropanın mədəniyyət və elm xadimləri iştirak etmiş, bu ölkələrin elm və mədəni sahələri arasında əməkdaşlıq genişləndirilmişdir. Bu tədbirlərdə Azərbaycanın və Bakının İslam sivilizasiyasına töhfələri təbliğ olunmuş, «İslam mədəniyyəti paytaxtı» adı bütün cəhətlərilə açıqlanmışdır. İlin sonunda isə İKT-nin yaradılmasının 40 illik yubileyi münasibətilə «Sivilizasiyalararası dialoq: Azərbaycandan baxış» adlı beynəlxalq elmi konfrans (11-12 noyabr 2009, Bakı) keçirilmişdir.

**ƏDƏBİYYAT**

*1. Azərbaycan beynəlxalq aləmdə. 5 cilddə. B., «Göytürk», 1996-1999.*

*2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni Əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. B., «Bakı Dövlət Universiteti» nəşriyyatı, 2001.*

*3. Əliyev H. Müstəqilliyimiz əbədidir. 28 cilddə. B., «Azərnəşr», 1997-2009.*

*4. Əliyev Heydər və Şərq. 6 cilddə. V kitab. İKT dövlətləri. B., «Çaşıoğlu», 2005.*

*5. Mahmudov Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. B., «Təhsil», 2002.*

*6. 2007-ci il aprelin 26-dan 28-nə qədər tarixdə Bakıda «Dözümlülüyün və qarşılıqlı anlaşmanın inkişafında KİV-lərin rolu» mövzusunda Beynəlxalq konfrans keçirilmişdi. «Xalq qəzeti», 27 aprel 2007-ci il. № 89 (25559); 28 aprel 2007-ci il. № 90 (25560); respublica. news.az*

*7. Bakıda Heydər Əliyev Fondunun dəstəyi ilə «Gənclər sivilizasiyaların alyansı naminə» təşəbbüsü çərçivəsində Beynəlxalq konfrans başlamışdır. «Respublika» qəzeti, 2 noyabr 2007-ci il. № 246 (3086).*

*8. Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin andiçmə mərasimində nitqi. 18 oktyabr 1998-ci il. «Azərbaycan» qəzeti, 19 oktyabr 1998-ci il.*

*9. «Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü» mövzusunda Beynəlxalq konfrans// Heydər Əliyev Fondu. Beynəlxalq əməkdaşlıq: Beynəlxalq konfranslar. // ftp://www.heydar-aliyev-foundation. org/#*

*10. Bakıda «İslamda dözümlülük» mövzusunda Beynəlxalq elmi konfrans keçirilmişdir ttp://azerbaijan.news.az/index.php?Lng=aze&Pid=2747 // http://azer-baijan. ne ws.az/index.php ?Lng=aze &Pid=2747*

*11. «Gənclər sivilizasiyaların alyansı naminə» Beynəlxalq konfrans // Heydər Əliyev Fondu. Beynəlxalq əməkdaşlıq: Beynəlxalq konfranslar. ftp://www.heydar-aliyev-foundation. org/#*

*12. Heydər Əliyev Fondunun prezidenti. // http://www.heydar-aliyev-foundati-on. org/#*

*13. «Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər» mövzusunda Beynəlxalq konfrans keçirildi // ftp://www.azadinform.az/index.php?dn=news&to=art&id=1495;http://aliyevheritage.org/cgi-bin/e-cms/vis/vis. p/?s=001&p=0170&n=000004&g=*

*14. «Milli azlıqların mədəni irsi və müasirlik» mövzusunda konfrans keçirilmişdir // ttp://azerbaijan.news.az/index.php?Lng=aze&Pid=8885*

*15. «Xalq qəzeti», 12 iyun 2008-ci il. № 127 (4938).*

*16. Донцов В.Е. Ислам в международных отношениях //Дипломатический Ежегодник. 1997. М.: Изд-во «Научная книга», 1997. с. 62-89.*

*17. Султанов Э.Ш. Международно-правовые аспекты деятельности организации Исламская конференция. Авт.канд.due. М., 2005.*

18. *Жданов И.В. Исламизм глобальная угроза? // ftp://www.ni-iss.ru/s_docl_zdanov2. shtml.*

19. *Ковальчук А. Международные исламские организации. Журнал «Отечественные записки». Тема номера: Ислам и Россия. № 5 (14), 2003. // ftp://www. strana -oz. ru/?numid= 14 &article=664.*

20. *Azerbaijan Focus. № 1 (1) 2009, İyun-Avqust. s. 12.*

21. *Organization of Islamic conferences // ttp://www.oic-oci.org*

***РЕЗЮМЕ***

***Гейдар Алиев и пропаганда исторической миссии Азербайджана***

*В статье рассматриваются вопросы формирования исторической миссии Азербайджана в качестве посредника в налаживании межрелигиозных, культурных, экономических и политических связей между Востоком и Западом.*

*Выдающийся политический и государственный деятель Гейдар Алиев, используя стратегическое положение Азербайджана, постоянно держал под контролем ряд задач в качестве основной линии внешней политики. Он стремился к сохранению роли Азербайджана как экономического, политического, научного и культурного моста и к расширению сотрудничества.*

*Одна из международных организаций – Организация Исламской Конференции (ОИК), членом и активным участником которой является Азербайджан, также проводит успешную деятельность в деле налаживания диалога между цивилизациями. В осуществлении политики ОИК в этом направлении Азербайджан считается одним из ведущих государств. Анализируя участие и вклад Азербайджана, имеющего исторические заслуги в этой области,* в *диалоге между цивилизациями, мы становимся свидетелями того, что он занял правильную позицию в осуществлении этой миссии (т.е. в налаживании тесных связей и с Западом, и с исламским миром). Эта позиция всесторонне показала себя на мероприятиях, проводившихся в связи объявлением Баку Столицей Исламской Культуры в 2009 году.*

***SUMMARY***

***Heydar Aliyev and the propaganda of the historical mission of Azerbaijan***

*The author explores the role of Azerbaijan as a place of encounter and transmission between religions and cultures. She emphasizes role of Azerbaijan as a mediator in economic, political and cultural connections.*

*Heydar Aliyev, influential political and statesman, articulated several priorities in international politics using Azerbaijan's strategical location. He also attempted to broaden and deepen rol of Azerbaijan as cultural bridge in economic, political, and scienfifit connections.*

*Organization of Islamic Conference, an international organization whose member active participant is Azerbaijan too, successfully develops dialog of civilizations. OIC evaluates Azerbaijan as one of leading nations in developing dialog between civilizations. Analyzing and reviewing Azerbaijan's historical accomplishments in that particular field of development we see that Azerbaijan has balanced position in terms of promoting close connections between the West and Islamic world. That balanced position was well demonstrated in celebrations held for official announcement of Baku being recognized as capital city of Islamic civiliation.*

**"Dövlət və Din**".-2010.-№ 3.- S. 55-64.

# TİBB TƏHSİLİ SİSTEMİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ

**Surxay MUSAYEV,**
tibb elmləri doktoru, professor,
respublikanın əməkdar həkimi

**Azərbaycan Tibb Universiteti özünün 80 illik yubileyi ərəfəsindədir. Ölkə Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Tibb Universitetinin 80 illik yubileyinin keçirilməsi haqqında" 28 aprel 2010-cu il tarixli sərəncamında qeyd olunduğu kimi, "Ötən illər ərzində respublikamızda təbabətin ən müxtəlif sahələrində yüksək hazırlığa malik kadrların yetişdirilməsində və mötəbər elmi mərkəz kimi tədqiqatların aparılmasında əhəmiyyətli rol oynamış Azərbaycan Tibb Universiteti milli səhiyyənin inkişafına layiqli töhfələr vermişdir". ATU 80 illik şərəfli yolunun yarıdan çoxunun ulu öndər Heydər Əliyevin və onun uzaqgörən parlaq ideyalarını layiqincə həyata keçirən möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında keçmişdir. Odur ki, Azərbaycan Tibb Universitetinin tarixi inkişaf yolunu şərti olaraq 2 mərhələyə bölmək olar: 1930-1969-cu illər və 1969-cu ildən sonrakı dövr. Bu 2 dövrü müqayisə etdikdə (əslində, onlar müqayisəedilməz dərəcədə fərqlidirlər) ATU-nun, bütövlükdə Azərbaycanda tibb təhsili sisteminin Heydər Əliyev dövrünün daha əzəmətli olduğu, inqilabi sıçrayışlarla xarakterizə olunduğu aydın görünür. Bu fəaliyyəti yaxından izləmək, Heydər Əliyev ideyalarının həyata keçirilməsi uğrunda görülən işlərin iştirakçısı, bəzən təşkilatçısı olmaq səadəti mənə də nəsib olmuşdur. Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildiyi tarixi 1969-cu il iyul plenumundan başlayaraq bir an belə tibb elmini, təhsilini, səhiyyəni diqqətdən kənar qoymamışdır.**

Hətta sonralar Sov. İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyəndə belə ulu öndər Azərbaycan səhiyyəsi, tibb təhsili sistemi, tibb elminin problemləri ilə ciddi məşğul olurdu. Problemlərin həllinə uzaqgörən yanaşma istedadına malik olan ölkə rəhbəri elə ilk günlərdən ali təhsil sistemindəki çatışmazlıqların, universitetin (o vaxtlar Azərbaycan Dövlət Tibb İnstitutu) maddi-texniki bazasının, kadr potensialının möhkəmləndirilməsi, kollektivdə mənəvi iqlimin sağlamlaşdırılması, kadr hazırlığının keyfiyyətinin yaxşılaşdırılması istiqamətində konkret, qəti və kəskin addımlar atmağa başladı. Bu barədə ulu öndər belə deyirdi: "Mən Azərbaycana rəhbərlik etdiyim zaman, sonra isə sovetlər ittifaqının, SSRİ-nin rəhbərliyində olduğum illərdə daim səhiyyə ilə, tibb elmi ilə yaxın olmuşam, ona qayğı göstərmişəm və hesab edirəm ki, çox işlər görmüşəm… Mən o vaxt Sovet İttifaqının Moskvada yerləşən ən böyük, ən mötəbər tibb ocaqları, müəssisələri ilə yaxından tanış idim, onların yaranmasında, inkişaf etməsində xidmətlər göstərirdim. Mənim o vaxt həm onkoloji mərkəzin, həm kardioloji mərkəzin, həm ürək cərrahiyyəsi mərkəzinin, həm oftalmoloji mərkəzlərin, başqalarının yaranmasında, inkişaf etməsində, onların maddi-texniki bazasının yaranmasında çox səylərim olmuşdur. Mən bu gün böyük məmnuniyyətlə xatırlayıram ki, o vaxt SSRİ Tibb Elmləri Akademiyasının 40 illik yubileyində Sovet İttifaqının rəhbərliyi adından iştirak etdim. Tibb alimlərinə müxtəlif mükafatlar təqdim etdim. Mən bir də bunları edərək o vaxt SSRİ dövləti tərkibində Azərbaycanın səhiyyəsinə marağı, qayğını daha da artırdım. Moskvada yerləşən o böyük tibb elmi mərkəzinin diqqətini Azərbaycana cəlb edirdim və Azərbaycana yardım etməyə çalışırdım".

1969-cu ilə qədər Azərbaycan Tibb Universitetinin bütün maddi-texniki bazası ozamankı Korqanov küçəsindəki 2-3 mərtəbəli əsas binadan, kiçik dəniz küçəsindəki ikimərtəbəli nəzəri fənlər binasından (bu yaxınlara qədər həmin binada Səhiyyə Nazirliyi yerləşirdi), anatomiya korpusundan və 4 yataqxanadan ibarət idi. Sonralar A. Bakıxanov küçəsində lal-kar uşaqlar üçün internat məktəbi başqa yerə köçürüldü və binanın Tibb İnstitutunun balansına verilməsi hesabına təhsil müəssisəsinin maddi-texniki bazası nisbətən genişləndirildi. Qeyd olunan bu binalar sırasında yalnız əsası universitetin ilk rektorlarından biri olan görkəmli dövlət xadimi, Azərbaycanda ali tibb təhsili sisteminin inkişafında müstəsna rol oynamış Əziz Əliyev tərəfindən qoyulmuş anatomiya korpusu və 3 nömrəli tələbə yataqxanası xüsusi layihə əsasında Tibb Universiteti üçün tikilmişdi. Qalan bütün binalar başqa təyinatlı olduqları üçün sonradan uyğunlaşdırılaraq tələbələrin istifadəsinə verilmişdi. Bütün bunlar təbii ki, ulu öndəri narahat etməyə bilməzdi. Onun birbaşa göstərişi ilə universitetin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün maliyyə imkanları araşdırılmağa və axtarılmağa başlandı. Məlum olduğu kimi, o zamanlar iri tikintilərin maliyyələşdirilməsi məqsədilə Moskvanın razılığı, icazəsi lazım idi. Bu isə çox böyük çətinliklər, gərgin zəhmət bahasına başa gəlirdi. Yalnız Heydər Əliyev nüfuzu və qətiyyəti bu çətinlikləri dəf edə bilərdi. Odur ki, qısa müddətdə 4 nömrəli tədris binası, 11 zaldan və üzgüçülük hovuzundan ibarət, unikal idman kompleksi, Elmi-Tədqiqat Mərkəzi, xüsusi layihə əsasında tikilmiş doqquzmərtəbəli 3 tələbə yataqxanası universitet kollektivinin ixtiyarına verildi və onbirmərtəbəli tədris

binasının tikintisinə başlanıldı. Lakin Heydər Əliyev hakimiyyətdən getdikdən, respublikada hərc-mərclik başlanandan sonra bu binanın tikintisi 6-7 il yarımçıq qaldı. Yalnız xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyevin qayğısı və köməyi nəticəsində bu tədris binasının tikintisinin davam etdirilməsi üçün maliyyə vəsaiti ayrıldı və 1998-ci ildə ulu öndərin özünün iştirakı ilə binanın açılışı oldu. 16 min kvadratmetr sahəyə malik olan tədris binasında universitetin 11 kafedrası, bir milyona yaxın kitab fondu olan əsaslı kitabxana, tibbi-informasiya mərkəzi və "Təbib" nəşriyyatı yerləşdirlmişdir. Tədris binası eyni zamanda 2500 nəfərə yaxın tələbəni qəbul etmək imkanına malikdir. Ümummilli lider açılış mərasimindəki proqram xarakterli nitqində "Tibb Universiteti Azərbaycan Respublikası, xalqı qarşısında böyük xidmətlər göstərmişdir" deməklə yanaşı qeyd etdi ki, "Sizin zay məhsul – biliksiz həkim buraxmağınız ağır nəticələr verər. Cəmiyyət qarşısında məsuliyyət hər birinizdən tələb edir: son dərəcə səmərəli işləməlisiniz ki, hər bir məzununuz yüksək dərəcəli mütəxəssis olsun".

Ulu öndərin bu sözləri universitet kollektivinin hər bir üzvünün fəaliyyət proqramına çevrilmişdir.

Onbirmərtəbəli tədris binasının açılışından 2 il keçməmiş universitetin professor-müəllim heyəti və tələbələrinin illərlə arzuladığı 500 nəfərlik böyük akt zalının tikintisi də başa çatdırıldı və 2000-ci il iyun ayının 19-da ulu öndər Heydər Əliyev tibb təhsilinə, tibb elminə, universitetin müəllim və tələbələrinə daha bir hədiyyəsini qürur və sevinc hissi ilə ərməğan etdi, təhsil ocağının 70 illik yubiley tədbirində çıxış etdi. Tibbi kadrların hazırlanmasında ən böyük problem kimi ulu öndər universitet klinikalarının olmamasından narahatlığını və imkan yaranan kimi bu problemi də həll edəcəyini bildirdi.

Belə bir imkan 2002-ci ildə yarandı. Universitet rəhbərliyinin təklifi müsbət dəyərləndirildi və ümummilli liderin göstərişi ilə səmərəsiz fəaliyyət göstərən 4 saylı şəhər stomatoloji poliklinikası ləğv olundu və onun bazasında "Azərbaycan Tibb Universitetinin Stomatoloji Klinikasının yaradılması haqqında" qərar qəbul edildi. Zaman bunun nə dərəcədə düzgün qərar olduğunu sübut etdi. Bu gün ən müasir tibb avadanlıqları ilə təchiz olunmuş klinika ölkənin qabaqcıl tibb müəssisəsinə çevrilmişdir. Burada adi müalicə üsullarından başlamış implantologiyaya qədər mürəkkəb stomatoloji əməliyyatların yüksək səviyyədə həyata keçirilməsi mümkündür. Klinikanın yaradılması Azərbaycan ali tibb təhsili sisteminin yeni inkişaf mərhələsinin başlanğıcı kimi qiymətləndirilməlidir.

Sevindirici haldır ki, bu gün möhtərəm Prezident İlham Əliyev də özünün dediyi kimi, Heydər Əliyevin siyasətinə sadiq qalaraq tibb təhsili sisteminin inkişafına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə böyük qayğı ilə yanaşır. Bu qayğının bariz nümunəsi kimi 2006-cı ilin may ayında universitetin Onkoloji Klinikasının yaradılmasını göstərmək olar. Akademik Əhliman Əmiraslanovun rəhbərlik etdiyi bu klinika qısa müddət ərzində həm tədris, həm elmi, həm də müalicə işləri sahəsində respublikada səhiyyə sisteminin öncüllərindən birinə çevrilmiş, neçə-neçə beynəlxalq konqres, konfrans və simpozimlara ev sahibliyi etmişdir.

2007-ci il sentyabr ayının 11-də "Azərbaycan Tibb Universitetinin tədris-terapevtik klinikasının yaradılması haqqında" sərəncam imzalayan ölkə Prezidenti növbəti ilin başlanmasını gözləmədən, vaxt itkisinə yol vermədən tikintini təcili başlamaq üçün Prezidentin Ehtiyat Fondundan vəsait ayırdı və sentyabrın 18-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva ilə birlikdə klinikanın təməlqoyma mərasimində iştirak edərək öz xeyir-duasını və tövsiyələrini verdi.

Bu sərəncamdan 6 ay keçməmiş 2008-ci il martın 13-də Prezident İlham Əliyev "Azərbaycan Tibb Universitetinin tədris cərrahiyyə klinikasının yaradılması haqqında" tibb təhsili üçün ikinci tarixi sərəncamını imzaladı. İndi hər 2 klinikanın tikintisi qrafik üzrə sürətlə davam edir. Terapevtik klinikada artıq tikinti-quraşdırma işləri başa çatmış, son tamamlama tədbirləri aparılır. Sentyabr ayında ondördmərtəbəli 400 çarpayılıq terapevtik klinika eyni zamanda 640 tələbəni qəbul edə biləcək 8 mühazirə zalı, bir gündə 1500-dən çox tələbəni qəbul edəcək 70-ə qədər dərs otağı, konfrans zalı, tibbi simulyator mərkəzi, kompüter mərkəzi, kompüter tomoqrafiya, angioqrafiya, rəqəmsal rentgen müayinəsi, mammoqrafiya, ultrasonoqrafiya, endoskopiya, exodoplerokardioqrafiya, elektrokardioqrafiya, elektroensefaloqrafiya, hemodializ, hemosorbsiya, plazmaferez şöbələri, ən müasir cihazlarla təchiz olunmuş klinik, immunoloji, biokimyəvi laboratoriyalarla professor-müəllim heyətinin, tələbələrin istifadəsində, xalqımızın xidmətində olacaqdır. Klinika tamamilə kompüterləşdirilmişdir. Burada xarici ölkələrin qabaqcıl klinikaları, dünyanın görkəmli tibb mütəxəssisləri ilə videobağlantı qurub, müzakirələr aparıb, məsləhətlər almaq mümkün olacaqdır. Bütün tədris otaqları, iş kabinetləri, palatalar sürətli internetə qoşulmuşdur. Prezident İlham Əliyevin təməlqoyma mərasimində dediyi kimi, "Bu klinika ən yüksək dünya standartlarına cavab verəcək, burada çox gözəl müalicə imkanları yaranacaqdır. Tələbələr üçün çox gözəl imkanlar yaranacaqdır. Tələbələr bu şəhərcikdə oxuyacaqlar, öz biliklərini artıracaqlar. Beləliklə, oxumaq üçün daha da yaxşı imkanlar yaranacaqdır. Bununla bərabər, ölkəmizdə yeni müasir klinikanın yaranması da çox böyük əhəmiyyətə malik hadisədir".

Beləliklə, son 10-12 il ərzində 1 tədris binasının, 1 akt zalının, 4 klinikanın yaradılması, kafedra və bölmələrin müasir avadanlıqlarla təchiz edilməsi onların təmir edilərək tədris üçün daha mütərəqqi şərait yaradılması ali tibb təhsilinə ölkə rəhbərliyinin böyük qayğısının bariz nümunəsidir. Bütün bunlar mütəxəssislərin həm diplomdan əvvəl, həm də diplomdan sonrakı hazırlığının daha səmərəli aparılmasına, sonrakı mərhələdə spesifik tibb kadrları yetişdirilməsi sahəsində dünya standartlarına uyğun gələn rezidentura sisteminə keçidə əsaslı zəmin yaradır.

Ulu öndər Heydər Əliyevin daim diqqət mərkəzində saxladığı və qayğı göstərdiyi ciddi problemlərdən biri də universitetin kadr potensialının möhkəmləndirilməsi, elmlər doktorları və namizədlərin hazırlanması idi. XX əsrin 70-ci illərində universitetdə elmi-pedaqoji kadrların hazırlanması bərbad vəziyyətə düşmüşdü. Bir tərəfdən elmi-tədqiqat işlərinin aparılması üçün respublikada, o cümlədən Azərbaycan Tibb İnstitutunda müasir maddi-texniki bazanın olmaması, digər tərəfdən uzun müddət SSRİ Ali Attestasiya Komissiyasının respublikalarda fəaliyyət göstərən ixtisaslaşdırılmış müdafiə şuralarının fəaliyyətinə icazə verməməsi, nəinki elmlər doktorlarının, eləcə də elmlər namizədlərinin sayının kəskin azalmasına gətirib çıxarmışdı. Təhsil ocağında kafedraların əksəriyyətinə artıq elmlər namizədləri, dosentlər rəhbərlik etməyə başlamışdılar. Bütün bunları çox narahatlıqla təhlil edən ulu öndər Heydər Əliyev problemi Səhiyyə Nazirliyinin, Tibb İnstitutunun və Elmlər Akademiyasının rəhbərliyi ilə müzakirə edərək vəziyyətdən çıxış yollarını araşdırdı və həmin qurumlar qarşısında konkret vəzifələr qoydu. Bununla kifayətlənməyən ulu öndər o zamankı SSRİ Səhiyyə Nazirliyinin, Tibb Elmləri Akademiyasının rəhbərləri ilə də danışıqlar apararaq elmi-pedaqoji kadrların hazırlanması işində respublikaya kömək göstərmələrini xahiş etdi. Məsələ onda idi ki, bu problemə diqqət o qədər azalmışdı ki, hətta rəsmi doktorantura yüksək ixtisaslı elmi-pedaqoji kadrlar hazırlama strukturu kimi ləğv edilmişdi. Odur ki, əvvəlki mərhələlərdə vaxt itirməmək məqsədilə seçilmiş istedadlı gənc kadrlar doktorluq dissertasiyası yerinə yetirmək üçün ulu öndərin tapşırığı ilə elmi-tədqiqat mərkəzinə baş elmi işçi vəzifəsinə keçirilir və Moskvanın, Leninqradın, Kiyevin, Minskin, Xarkovun və digər şəhərlərin güclü elmi mərkəzlərinə "iş yerlərinə" ezam edilirdilər. Moskvaya və digər şəhərlərə oxumağa göndərilmiş gənclərə Heydər Əliyev əsl atalıq qayğısı göstərirdi. Demək olar ki, hər il, bəzən ildə bir neçə dəfə onları Moskvada toplayır, diqqətlə arzu və təkliflərini dinləyir, yerindəcə aidiyyəti qurumlara göstərişlər verirdi. Əlaqələri möhkəmləndirmək üçün SSRİ Tibb Elmləri Akademiyasının səyyar sessiyalarının, beynəlxalq, ümumittifaq konfrans, simpozium, konqreslərin Bakıda yüksək səviyyədə keçirilməsinə nəinki şərait yaradır, hətta həmin tədbirlərin keçirilməsini öz nəzarətinə götürür, çox vaxt şəxsən iştirak edir, təbrik məktubu göndərir, qonaqları yüksək səviyyədə qəbul edir, onlardan yeganə xahişi isə gənclərimizə diqqət və qayğı ilə yanaşmaqdan, tələbələrin yüksək ixtisaslı kadrlar kimi yetişmələrinə şərait yaratmaqdan ibarət olurdu. Çox keçmədi ki, ulu öndər Heydər Əliyevin təşəbbüsü və təkidi ilə SSRİ miqyasında doktorantura sistemi bərpa edildi və onlarla perspektivli gənc tibb kadrları SSRİ-nin qabaqcıl ali tibb məktəblərində, elmi-tibbi mərkəzlərdə doktorluq dissertasiyası müdafiə etməklə yanaşı, həm də yaxşı klinisist məktəbi keçərək respublikaya qayıtdılar. Bu gün Azərbaycan Tibb Universitetində kafedralara rəhbərlik edən alimlərimizin böyük əksəriyyəti məhz həmin dövrdə yetişmiş, necə deyərlər, Heydər Əliyevin kadrlarıdır.

Kadrlara tələbkarlığın artırılması ilə yanaşı, onlara atalıq qayğısı göstərmək Heydər Əliyevin fəaliyyətində daim əsas amillərdən biri idi. Ulu öndərin rəhbərliyi dövründə bütün ali məktəblərin, o cümlədən Azərbaycan Tibb Universitetinin professor-müəllim heyətinin müxtəlif səviyyəli təltiflərə, fəxri adlara layiq görülməsi, mənzillə, minik avtomobilləri ilə təmin edilməsi ənənə şəklini almışdı. O zaman Heydər Əliyev layiqli insanların təltif edilməsini SSRİ rəhbərliyinin qarşısında qoyur və istədiyinə nail olurdu. Akademik Mustafa Topçubaşovun Sosialist Əməyi Qəhrəmanı kimi ən yüksək ada və mükafata layiq görülməsi, onlarla əməkdaşımızın SSRİ-nin orden və medalları ilə təltif olunması, Dövlət Mükafatına layiq görülməsi, əməkdar elm xadimi, əməkdar həkim fəxri adları alması ulu öndərin müstəsna səyi, nüfuzu və qayğısı nəticəsində baş tuturdu.

Yaxşı yadımdadır, 1980-ci il avqust ayının 22-də qəbul imtahanlarından sonra müsabiqə məsələləri yekunlaşmadığı üçün rektorluq müvəqqəti olaraq anatomiya korpusunda fəaliyyət göstərirdi. Birdən institutun ovaxtkı rektoru mərhum Zəhra xanım Quliyevanı telefona çağırıb xəbər verdilər ki, Moskvada müşavirədə olan Heydər Əliyev onunla danışacaq. Bir azdan Zəhra xanım həyəcanlı və hədsiz sevinc hissi ilə kabinetdən çıxaraq Heydər Əliyevin xoş xəbərini – bir neçə dəqiqə əvvəl L. İ. Brejnevin SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanını imzaladığını, institutun 50 illik yubileyi münasibətilə "Qırmızı Əmək bayrağı" ordeni ilə təltif olunduğunu və bu münasibətlə onun səmimi təbriklərini bütün kollektivə çatdırmağı xahiş etdiyini bildirdi. Bu, həmin dövrün ən yüksək təltiflərindən biri idi. Şərəfli haldır ki, qısa müddətdən sonra ulu öndər özü bu ordeni institutun bayrağına sancdı və geniş, bugünə qədər aktual olan bir nitq söylədi. Bunu yalnız ürəyi ölkənin hər bir vətəndaşının qəlbi ilə birlikdə döyünən, hər bir müəssisəsinin müvəffəqiyyətinə sevinən, Vətənini həyatı qədər

sevən, ümummilli lider səviyyəsinə yüksəlmiş, nüfuzu ilə nəinki keçmiş SSRİ məkanında, eləcə də dünya miqyasında sayılıb-seçilən, qəbul edilən Heydər Əliyev kimi dövlət başçısı, böyük siyasətçi edə bilərdi.

Müəllimlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına daim qayğı göstərirdi. Böyük rəhbərin tapşırığı ilə neçə-neçə alimlərimizə şəhərimizin görkəmli yerlərində tikilmiş yeni binalarda mənzillər verildi, kooperativ tikintisi üçün yerlər ayrıldı. İnstitutun 50 illik yubileyi ərəfəsində 30 nəfərə qədər müəllimə yeni mənzillərin açarları təqdim olundu. Universitetin 70 illik yubileyi zamanı isə ulu öndər 70 əməkdaşımızı ölkənin ali orden və medalları ilə təltif etdi, fəxri adlara layiq gördü.

Böyük öndər daim vurğulayırdı ki, hər bir ölkənin intellektual, mədəni, istər elmi, siyasi, istərsə də idarəçilik, dövlətçilik səviyyəsi onun gənclərinin səviyyəsi ilə ölçülür. Odur ki, gənclərin təhsilinə, tərbiyəsinə, ictimai-siyasi baxışlarının saflığına diqqət yetirir, onların bu istiqamətdə inkişafına geniş şərait yaradırdı. Ali təhsilli tibb kadrlarının hazırlanması sahəsinə ulu öndər strateji bir məsələ kimi baxırdı. Həm tələbə qəbulunu, həm tədris prosesinin yaxşılaşdırılmasını, xüsusilə də gələcək həkimlərin mənəvi tərbiyəsini daim nəzarətdə saxlayırdı. Ümummilli lider Heydər Əliyev deyirdi: “Həkim üçün hər bir keyfiyyət lazımdır. Amma ən əsas keyfiyyət yüksək mənəviyyatdır. Mən sizə arzu edirəm ki, hər biriniz öz peşənizlə bərabər, yüksək mənəviyyata malik olasınız”. Gələcək həkimlərin mənəvi tərbiyəsinə xüsusi diqqət yetirməyi universitet rəhbərliyindən qətiyyətlə tələb edirdi. Yaxşı yadımdadır, 1978-ci ilin mart ayında indiki Heydər Əliyev Sarayında Azərbaycan komsomolunun XXX qurultayı keçirilirdi. Təhsil sistemindən 4 qurultay nümayəndəsinə çıxışa hazırlaşmaq tapşırılmışdı. Onlardan 3-ü ali və orta ixtisas təhsili müəssisələrinin adlı təqaüdlə oxuyan tələbələri idi, mən isə Tibb İnstitutunun komsomol komitəsinin katibi vəzifəsində işləyirdim. Təbii ki, bizim institutdan yalnız bir nəfər çıxış edəcəkdi. Qurultayın birinci gününün axırında mənə bildirdilər ki, çox güman çıxış etməyəcəksən, tələbələrdən birinə söz veriləcək. Səhəri gün saraya daxil olan kimi təşkilatçılar xəbər verdilər ki, mən mütləq çıxış etməliyəm. O zamanlar Azərbaycan KP MK-nın və Bakı şəhər Partiya Komitəsinin plenumlarında Heydər Əliyevin gənclərin mənəvi tərbiyəsi mövzusunda tənqidi fikirlərinə və təkliflərinə əsasən respublika mətbuatında silsilə yazılar çap olunur, xüsusilə də atalarının aldığı minik avtomobillərində institutlara gələn, yol hərəkəti qaydalarına məhəl qoymayan, oxumaq əvəzinə tələbə yoldaşlarına pis nümunə göstərən gənclər, onların valideynləri tənqid olunurdular. Belə yazıların ikisində – “Bakinskiy raboçi” qəzetində “Papina maşina” və “Azərbaycan gəncləri” qəzetində “Ataların gül balaları” adlı məqalələrdə bizim tələbələrin də adları çəkilmişdi. Mənim də çıxışımda bu məsələlərə ciddi yer ayrılmışdı. Odur ki, çıxışımın yenidən gündəliyə salınması məni ciddi həyəcanlandırmağa başladı. İntuitiv olaraq nə isə olacağını hiss edirdim. Görünür, həyəcanım o qədər güclü idi ki, kənardan belə hiss edilirdi. Qurultayın Rəyasət heyətinin 3-cü cərgəsində mənimlə yanaşı oturmuş mərhum akademik Azad Mirzəcanzadə dedi: “Sən dünən sakit idin, bu gün niyə belə həyəcanlısan?” Səbəbini dedim. Cavabında bildirdi ki, “O kişinin yanında söz demək çox çətindir. Mən də olsam həyəcanlanaram, o ki qala sənin kimi cavan oğlan. Amma özünü topla, daha da çaşarsan”. Bir azdan mənə söz verdilər. Sarayda xitabət kürsüsü rəyasət heyətinin önündə, ortada qoyulduğundan çıxış edən arxada kimin deyilənlərə necə reaksiya verdiyini görə bilmirdi. Çıxışın ortasında mən yuxarıda qeyd etdiyim faktlardan, görülmüş tədbirlərdən danışarkən birdən “yoldaş Musayev, bir dəqiqə” deyib ulu öndər mənə müraciət etdi. Çıxışımı dayandırıb arxaya çevrilib ulu öndərin təbəssüm dolu nurlu simasını görəndə hiss etdim ki, çıxış xoşuna gəlib. Rahatlaşdım. Bir neçə sual verdi, bəzi tələbələrin mənəvi tərbiyəsində olan qüsurların onu narahat etdiyini və ictimaiyyətin, xüsusilə gənclər təşkilatlarının bu işlə prinsipial və ardıcıl məşğul olmalarının vacib olduğunu bildirdi. Qurultayda fasilə zamanı ulu öndərlə olan görüşümü isə həyatımın ən gərgin, unudulmaz, məsuliyyətli və xoşbəxt anlarından hesab edirəm. Həmin görüş zamanı mən bildim ki, qalan çıxışçıların siyahısına baxandan sonra ulu öndər özü bir neçə nəfərin, o cümlədən mənim çıxışımı dinləməyi təklif edib. Qeyd etdi ki, həkimin mənəviyyatı, əxlaqı, təmizliyi və paklığı kimi dəyərli xüsusiyyətlər tələbəlik illərində formalaşdırılmalıdır və gənclər təşkilatları bu işdə fəal olmalı, seyrçi mövqe tutmamalıdırlar. Bu təbliğatı birbaşa lazım olan yerdə insanlarla aparmaq, tapşırığı birbaşa icraçıların özlərinə vermək, onlardan tələb etmək kimi spontan nüanslar Heydər Əliyevə məxsus idi.

Ulu öndər respublikaya rəhbərlik etdiyi bütün dövrlərdə ali məktəblərdə, o cümlədən Tibb Universitetində tələbə kontingentinin formalaşdırılmasını, qəbul imtahanlarının obyektiv, şəffaf keçirilməsini xüsusi nəzarətə götürürdü. Qəbul imtahanlarının gərgin vaxtı ulu öndər işinin çox olmasına baxmayaraq, şəxsən imtahan otaqlarına gələr, abituriyentlərlə, müəllimlərlə söhbət edər, təkliflərini dinləyərdi. Sonra həyətə çıxaraq valideynlərlə görüşərdi, deyilən hər bir təklif və ya irada öz münasibətini bildirər, universitet rəhbərliyinə konkret göstərişlərini verərdi. 1993-cü ildə hakimiyyətə qayıdışından sonra da ulu öndər tələbə qəbulu məsələlərinə daim ciddi diqqət göstərər, bütün vacib məsələləri öz nəzarətində saxlayardı. Qəbul imtahanlarında yüksək bal toplamış tələbələrə Prezident təqaüdünün təsis edilməsi, fərqlənmiş gənclərlə Prezident Aparatında

görüşməsi, xaricdə təhsil alan gənclərin sayının hər il artırılması, onların bütün problemlərinin həll edilməsi, tələbələrin təqaüdlərinin artırılması ulu öndərin təhsilə olan böyük qayğısının bariz nümunəsi idi.

Ulu öndərin 1993-cü il iyun ayının 15-də yenidən hakimiyyətə gəlişindən sonra ölkədə yaratdığı ictimai, siyasi sabitlik, iqtisadi inkişaf tibb elmində başlamış tənəzzülün qarşısının alınmasında öz müsbət təsirini göstərdi. Bununla yanaşı, tibb elminin inkişafı, təhsil islahatlarının həyata keçirilməsi üçün imkanlar genişləndi. Bunların müqabilində 1996-cı ildə Azərbaycan Tibb Universiteti dünya təhsil və elm ocağı Qara dəniz ölkələri Universitetlər Assosiasiyasının, 2000-ci ildə Beynəlxalq Ali Məktəblər Assosiasiyasının, 2002-ci ildə isə Avropa Universitetlər Assosiasiyasının tamhüquqlu üzvü seçildi. Bu illər tibb elminin sıçrayışlı yüksəlişi kimi yadda qaldı.

Heydər Əliyevin göstərişi ilə ATU-nun nəzdində perspektivli hərbi-tibb fakültəsi yaradıldı. 2002-ci ildə həmin fakültənin ilk buraxılışı oldu və 25 nəfər məzun bu ixtisas üzrə vəsiqə aldı. Əvvəllər belə kadrlar başqa ölkələrin Hərbi Tibb akademiyalarında hazırlanırdı. İndi artıq öz gücümüzlə milli hərbi tibb kadrlarımızı hazırlaya bilmək imkanı əldə etmişik. Bu, ölkə başçısının Azərbaycanın gələcəyinə, onun tibb elminə ərməğan etdiyi ən böyük töhfələrdən olmuşdur.

Ulu öndər Heydər Əliyevin müstəqil ölkəmizə rəhbərlik etdiyi son 10 il Azərbaycan tibb elminin, Azərbaycan tibb təhsili sisteminin uğurlu inkişaf və yüksəlişi illərinə çevrilmişdir. İnamla demək olar ki, ATU ulu öndərin diqqət və qayğısı sayəsində ölkənin ən böyük elm və tədris müəssisələrindən birinə çevrilmişdir. 1500 nəfərə yaxın professor-müəllim heyətinə malik Azərbaycan Tibb Universiteti ölkə Prezidentinin sərəncamı ilə muxtar qurum kimi fəaliyyət göstərir. Yarandığı gündən indiyə qədər ATU-da hazırlanmış 65 minə yaxın həkim və provizorların 12 minə yaxını Azərbaycanın müstəqillik qazandığı ilk onillikdəki dövrə təsadüf edir. Bütövlükdə isə ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə universitetimizdə 45 minə yaxın həkim və provizor kadrları hazırlanmışdır.

Dahi Heydər Əliyevin qurduğu bünövrəyə, onun yolunu ləyaqətlə davam etdirən Prezident İlham Əliyevin qayğı və köməyinə söykənərək Azərbaycan Tibb Universiteti dünya tibb elmi və tibb təhsili sisteminə daha sıx inteqrasiya olunmaq, ölkəmiz üçün layiqli həkim kadrları hazırlamaq istiqamətində uğurla addımlayır və inkişaf edir. Azərbaycan səhiyyəsinin, tibb elmi və tibb təhsili sisteminin ən parlaq səhifəsi – Heydər Əliyev mərhələsi yenə də geniş yoldadır və bu, gələcəkdə də belə olacaqdır.

“**Azərbaycan**“.-2010.-28 avqust.-N 188.-S.3.

# HEYDƏR ƏLİYEV VƏ NAXÇIVANDA MƏTBUATIN İNKİŞAFI

**Məmməd MƏMMƏDOV,**
Naxçıvan MR Ali Məclisinindeputatı,
tarix elmləri namizədi, əməkdar jurnalist

**Ötən əsrin 70-ci illərindən Azərbaycanın hər yerində olduğu kimi Naxçıvan Muxtar Respublikasında da mətbuatın inkişafında yeni mərhələ başlanıb. Bu dövrdən ölkəmizdə baş verən sosial-iqtisadi inkişafı, intibahı burada nəşr olunan qəzetlərin səhifələrində də aydın duymaq olur. Azad söz və sərbəst fikir, kütləvi informasiya vasitələrinə yeni baxış, mətbuat və ədəbi mühitdə yalan və qərəzdən uzaq tənqidin formalaşması da bu dövr üçün xarakterikdir. Təbii ki, mətbuatın yeni inkişaf mərhələsinə qədəm qoyması, onun maddi-texniki bazasının möhkəmləndirilməsi ümummilli lider Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlı olub. Bunlar respublikada böyük vüsətlə aparılan quruculuq siyasətinin tərkib hissəsinə çevrilib.**

Həmişə qəzetçiliklə, mətbuatla nəfəs almışam. Elə olmasaydı ali təhsilli hüquqşünas, tarix elmləri namizədi kimi həyatın başqa sahələrində də öz gücümü, qabiliyyətimi göstərməyə çalışardım. Gənclik illərimdə işlə, vəzifə ilə bağlı muxtar respublikanın ayrı-ayrı icra strukturlarından aldığım təkliflər də az olmayıb. Amma heç bir halda yazı-pozu işlərimi yüksək məmur rütbəsi ilə əvəz etmək istəməmişəm. Buna peşman deyiləm. Son beş ildə iki dəfə yüksək hökumət mükafatına – Naxçıvan MR-in və Azərbaycan Respublikasının “Əməkdar jurnalisti” fəxri adlarına layiq görülməyimi əməyimə verilən ən yüksək qiymət hesab edirəm. Üstəlik də on ildir ki, Naxçıvan MR Ali Məclisində həmkarlarımı da təmsil edirəm.

Amma nə gizlədim, son illər yerli mətbuat tarixinə olan marağım da birə-beş qat artıb. Bəzən bu sahədə tədqiqat işləri də aparıram. Bu silsilədən Naxçıvan mətbuatının ulu öndər Heydər Əliyevin adı ilə bağlı inkişaf mərhələsindən bəhs edən yazını oxuculara təqdim edirəm.

70-ci illərin əvvəllərində Naxçıvan şəhərində redaksiya-nəşriyyat kompleksi inşa olunmuş, muxtar respublikanın söz tribunası olan “Şərq qapısı” qəzetinin gündəlik və böyük formatda nəşri təmin edilmişdir. Qəzet adamların mövcud ideologiya əsasında tərbiyə olunması ilə bərabər, muxtar respublikanın ictimai-siyasi, sosial həyatının işıqlandırılmasında, qabaqcıl əmək, yaradıcı və ziyalı adamların portretlərinin yaradılmasında, regionun iqtisadi dirçəlişində və bu prosesin salnaməsinin yaradılmasında mühüm rol oynayıb. O, öz müsbət ənənələrinə sadiq qalaraq insanları yaşamağa, qurub-yaratmağa sövq edib.

1972-ci ilin yanvar ayında o vaxtkı respublika rəhbəri Heydər Əliyevin himayəsi ilə qəzetin ilk nömrəsinin çapdan çıxmasının 50 illiyi münasibəti ilə yubiley tədbirləri keçirilmişdir. Qəzet redaksiyası sovet dövrünün ən yüksək dövlət mükafatlarından biri olan “Şərəf nişanı” ordeni ilə təltif olunmuş, qəzetin bir neçə əməkdaşına fəxri adlar verilmişdir. Bunlar yarım əsr ərzində qəzetə və onun əməkdaşlarına verilən ən yüksək qiymət olmuşdur.

1981-ci ilin dekabr ayında isə qəzetin 60 illik yubileyi keçirilmişdir. Bu münasibətlə qəzet Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir. Qəzetin redaktoru Sənubər Kərimovaya Azərbaycan SSR-in əməkdar mədəniyyət işçisi, üç əməkdaşa isə muxtar respublikanın fəxri adları verilmişdir.

Həmin illərdə qəzetdə tez-tez xalqımızın dil, ədəbiyyat, mədəniyyət və tarixinə həsr olunmuş, azərbaycançılıq ideologiyasına xidmət edən çoxlu yazılar dərc olunub. Bu baxımdan xalqımızın ən qədim tarixi abidələrindən biri olan Gəmiqaya haqqında dərc olunan “Xalqımızın mənlik heykəli” adlı yazı diqqəti daha çox cəlb edir. Az sonra həmin yazının sorağı Sov. İKP MK Siyasi Bürosuna qədər çatmış, sovet imperiyasının başçısı M. S. Qorbaçov qəzetin bu çıxışını millətçilik təzahürü adlandırmışdır. Buna səbəb isə həmin yazıda Nuh peyğəmbərlə bağlı toponimlərin Naxçıvanda mövcud olması, əcdadlarımızın bəşəriyyətin ilkin sakinlərindən olması barədə qocaman alim, filologiya elmləri namizədi Əbülfəz Hüseyninin mülahizələrinin erməni millətçilərini qıcıqlandırması olmuşdur.

Xalqımızın ümummilli lideri Heydər Əliyev sonralar Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə bu məsələyə toxunarkən demişdir: “Xatirimdədir, mən Moskvada işləyəndə “Şərq qapısı” qəzetində Gəmiqaya haqqında məqalə çıxmışdı. Onu böyük bir problemə çevirdilər. Ermənilər qalxdılar ki, burada – Azərbaycanda millətçilik var… Qorbaçov məndən soruşdu ki, Azərbaycanda millətçilik çoxdur, yoxsa azdır? Mən dedim ki, ümumiyyətlə, millətçilik müttəfiq respublikalarda var, Azərbaycan ən beynəlmiləl bir respublikadır…

Onda bizim yanımızda oturan Siyasi Büronun üzvlərindən biri qayıtdı ki, “Yox, Heydər Əliyeviç, yəqin ki, siz düz demirsiniz. Bax, görürsünüzmü, Naxçıvanda “Şərq qapısı” qəzetində məqalə dərc ediblər, millətçilik haqqında…

Düzü, mənim bundan heç xəbərim yox idi ki, nə məqalədir. Bunu şişirdərək elə bir vəziyyətə gətirib çıxarmışdılar ki, SSRİ-nin rəhbərliyi, Siyasi Büro səviyyəsində söhbətlər gedirdi… Nə üçün? Çünki ermənilər deyirdilər ki, bu abidə Azərbaycanın deyil, ermənilərindir…"

Heç şübhəsiz ki, 80-ci illərin ortalarından məmləkətimizdə milli şüurun oyanmasında və özünüdərk prosesinin formalaşmasında vətənpərvərlik ruhunda dərc olunan belə yazılar ulu öndərin Azərbaycanda yaratdığı şəraitin nəticəsi idi. Heydər Əliyev böyük siyasətçi, xalqının maraqlarını qoruyan dövlət xadimi kimi milli ruhlu ziyalılarımızı yad təzyiq və təqiblərdən qoruya bilmişdir.

Səksəninci illərin sonlarından, 90-cı illərin əvvəlindən isə "Şərq qapısı" qəzeti ölkəmizdə müstəqillik ideyalarının həyata keçirilməsində fəal mübarizə aparmışdır. 1990-cı ildə Naxçıvan Muxtar Respublikasının Ali Soveti torpaqlarımıza erməni təcavüzü ilə bağlı ədalətsizliklərə etiraz olaraq sovet imperiyasının tərkibindən çıxmaq haqqında qərar qəbul edərkən "Şərq qapısı" həmin qısamüddətli "müstəqillik" dövründə də əsas mətbu orqanı kimi çıxış etmişdi. O ağır və mürəkkəb zamanda müstəqil "Şərq qapısı" qəzetinin 7 nömrəsi işıq üzü görmüşdü.

Azərbaycanda, o cümlədən, Naxçıvanda xalq hərəkatı, genişlənməkdə olan demokratikləşmə prosesi MR-də mətbu orqanların fəaliyyətində də özünü göstərməyə bilməzdi. Ulu öndərin Naxçıvanda tarixi xilaskarlıq missiyasını həyata keçirdiyi dövrdə Naxçıvan Vilayət Həmkarlar Şurasının "Ağrıdağ", AXC Naxçıvan şöbəsinin "Varlıq" qəzetləri də nəşr olunmağa başlamışdır. Onlar qısa müddət ərzində fəaliyyət göstərmələrinə baxmayaraq milli şüurun oyanmasında əhəmiyyətli rol oynamışlar.

Müstəqillik dövrümüzdə Muxtar Respublikada rayon qəzetlərinin adları ilə yanaşı, fəaliyyət istiqamətləri də genişlənmişdir. Naxçıvan Şəhər İcra Hakimiyyətinin "Nuh yurdu" (1996), Sədərəkdə "Oğuz yurdu" (2000), Kəngərli rayonunda isə "Yeni həyat" (2005) qəzetləri və "Naxçıvan" ictimai-siyasi və elmi publisistik jurnalı fəaliyyətə başlamışdır.

Xalqımızın böyük oğlu, dahi siyasətçi Heydər Əliyevin Moskvadan Naxçıvana qayıdışından, Muxtar Respublikaya rəhbərlik etməyə başlamasından sonra bu qədim diyarın çoxəsrlik tarixində yeni bir mərhələnin təməli qoyuldu.

Ağır günlər keçirən Naxçıvan Muxtar Respublikasının bu dövrü olduqca gərgin, ziddiyyətli, eyni zamanda, tələbkar və maraqlı bir dövr idi. Qarabağ problemi ətrafında yayılan dalğanın zərbə qüvvəsinə məruz qalan, sərhədyanı kəndləri ermənilər tərəfindən işğal və qarət olunan, dincliyi əlindən alınan Naxçıvan "taleyin ümidinə buraxılmış bir ada"nı (Heydər Əliyev) xatırladırdı. Azərbaycanla nəqliyyat – kommunikasiya əlaqələri kəsiləndən, iqtisadi və siyasi böhran içərisində boğulan adamların son ümidləri olan ov tüfəngləri də yığılandan sonra erməni təcavüzü qarşısında əliyalın və köməksiz vəziyyətdə qoyulan Naxçıvan 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə düşdüyü vəziyyətə SSRİ-nin tərkibindən çıxması ilə etirazını bildirdi. Bundan narazı qalan iqtidar və ixtiyar sahiblərinin qəzəbinə düçar olmuş Naxçıvana qarşı təzyiqlər gücləndi.

Vətən torpağına qayıdışından sonra, 22 iyul 1990-cı ildə geniş xalq kütləsi qarşısında ilk tarixi çıxışını Naxçıvan şəhərindəki Azadlıq meydanında edən ümummilli lider Heydər Əliyev hadisələrin gərginliyi fonunda mətbuatı da unutmamışdı. İlk müsahibəni bölgəyə gəlişindən dörd gün sonra "Şərq qapısı" qəzeti"nin müxbirinə vermişdi. "Daha susa bilməzdim…" adlı həmin yazını bəzən tədqiqatçılar "Vətənə qayıtdıqdan sonra Heydər Əliyevdən alınıb Azərbaycan mətbuatında dərc olunmuş ilk müsahibə" kimi də dəyərləndirirlər. Ulu öndər müsahibədə qəzetə olan münasibətini belə açıqlamışdı: "Mən "Şərq qapısı" qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün "Şərq qapısı"ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb".

Qəzetin 2 avqust 1990-cı il tarixli nömrəsində dərc olunan, müdrik siyasətçinin Naxçıvan gəncləri ilə görüşündən bəhs edən yazının sonunda verilən fikirlər də diqqəti cəlb edir: "Hələlik Naxçıvandayam, əgər bütün naxçıvanlılar mənim burada yaşamağımı arzu edərsə, buna etiraz etmərəm. Mənim başlıca arzum Azərbaycanı siyasi və iqtisadi cəhətdən müstəqil, demokratik respublika kimi görməkdir".

Dahi rəhbər Ali Məclisin sədri kimi fəaliyyəti dövründə regionda kütləvi informasiya vasitələrinin roluna böyük əhəmiyyət vermiş, jurnalistlərin peşə fəaliyyətləri üçün geniş imkanlar yaratmışdır. Bununla bərabər o, vaxtaşırı yerli mətbuat nümayəndələri ilə görüşmüş, nəyi və necə yazmağı, ümummilli maraqlara qulluq etməyin nədən ibarət olduğunu onlara anlatmağa vaxt tapa bilmişdi. Yaxşı xatirimdədir ki, 1992-ci ilin may ayında muxtar respublikanın sərhəd bölgələrində erməni təcavüzkarları ilə döyüşlərin qızğın çağında müdrik siyasətçi kütləvi informasiya vasitələrinin Naxçıvandakı müxbirlərini otağına toplayaraq (onda bu sətirlərin müəllifi "Sovet kəndi" qəzetinin müxbiri idi) "sərhəd bölgələrində qızğın döyüşlər gedir, o yerlərdən niyə yazılar yazmırsınız" – deyə təəccüblə soruşmuşdu.

O vaxt hamımız təəccüblə bir-birimizin üzünə baxmışdıq. Məgər bunu bizlərə demək lazım imiş?! Elə həmin günlərdə mənim mətbuatda "Müharibə görməmişdim" adlı publisistik qeydlərim dərc olundu.

Azərbaycanın suverenliyi, xalqın sosial-iqtisadi vəziyyətinin yaxşılaşması, siyasi sabitlik, ictimai gərginliyin aradan qaldırılması və digər ümummilli məsələlər o dövrdə "Şərq qapısı" qəzetinin əsas mövzu dairəsini əhatə etmişdi. Böyük öndərin rəhbərliyi altında milli dövlətçiliyimizin bərpası ilə bağlı Naxçıvan parlamentində qəbul edilən tarixi qərarlar da məhz ilk dəfə bu qəzetin səhifələrində dərc olunmuşdu. Sovet rejiminin hökmranlıq etdiyi bir dövrdə məmləkətimizin müstəqil, demokratik və dünyəvi dövlət kimi fəaliyyət göstərməsi üçün mühüm siyasi və ideoloji əhəmiyyət kəsb edən tarixi qərarların qəbul edilməsi, həqiqətən, böyük uzaqgörənlik və cəsarət tələb edirdi.

Azərbaycanın ayrı-ayrı bölgələrindən daxil olan məktublar da ulu öndərin Naxçıvana rəhbərlik etməsi ilə bağlı qəzetin yayım dairəsinin muxtar respublika sərhədlərini xeyli aşdığını göstərirdi. Blokada şəraitində olan Naxçıvanın problemləri, muxtar respublikada baş verən ictimai-siyasi proseslər, o dövrkü hakimiyyət tərəfindən Heydər Əliyevə yönəldilən təzyiqlər və digər hadisələr obyektiv şəkildə qəzetin aparıcı mövzularını təşkil edirdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevə qarşı siyasi təqiblərin davam etdiyi illərdə qəzet, həqiqi mənada, demokratik fikrin, azad sözün tribunası kimi seçilmişdi.

Müstəqillik dövründə "Şərq qapısı" fikir plüralizmini, əqidə, söz azadlığını, dövlətçilik amalını özünün başlıca meyarları hesab edərək ictimai-siyasi prosesləri operativ və tərəfsiz əks etdirməyə çalışan, milli maraqları hakimiyyət maraqlarından üstün tutan mətbu orqanlardan biri kimi fəaliyyət göstərmişdir. Geniş oxucu kütləsinin qəzetə böyük maraq göstərməsinin əsas səbəbi isə heç şübhəsiz ki, bu qəzetin Azərbaycanı bəlalardan xilas edəcək liderin məhz ulu öndər Heydər Əliyev olduğunu öz səhifələrində qətiyyətlə və cəsarətlə ifadə etməsi idi. Laçın rayon sakini, ziyalı Səfa Rzayevin məktubu (21 fevral 1991-ci il) bu baxımdan maraqlıdır. Məktubun bir yerində deyilirdi: "Bizə parçalanma lazım deyil. Axı, cəbhələşmə erməni daşnaklarının dəyirmanına su tökməkdən daha dəhşətlidir. Biz Heydər Əliyev kimi görkəmli siyasi və ictimai xadimdən, onun təcrübəsindən, nüfuzundan, potensial imkanlarından nə üçün istifadə etməyək ?".

Qəzetin 9 may 1992-ci il tarixli nömrəsində dərc olunan "Şəxsiyyət" adlı məqalənin müəllifi prezident seçkiləri ərəfəsində vəzifə hərisləri və hakimiyyətdən öz şəxsi mənafeləri üçün istifadə etməyə çalışanlara üz tutaraq atdıqları hər addımı yüz dəfə ölçüb-biçməyə və qəflət yuxusundan ayılıb Heydər Əliyev şəxsiyyətinin varlığını dərk etməyə çağırırdı. Müəllif indiki ağır bir durumda kimi prezident seçmək gərəkdir sualına birmənalı belə cavab verirdi: "Əgər o şəxs faciələrimizi doğuran səbəbləri aşkarlayıb bizi batdığımız böhran bataqlığından çəkib çıxara biləcəksə, bakirəliyi tapdalanmış qızlarımızın, başları kəsilmiş ağsaqqallarımızın, tonqallarda yandırılmış körpələrimizin intiqamını almaq üçün bayquşlar yuvası olan daşnakstanın baş kəndini ikinci Xocalıya döndərə biləcəksə, öz polad yumruğunu günahsız xalqımızı qızıl xəzinələri üstə dilənçi kökünə salmış acgöz Azərbaycan mafiyasının təpəsində Koroğlu gürzünə çevirə biləcəksə buyursun… Bunun üçün qüdrətli şəxsiyyət olmaq gərəkdir. Belə bir şəxsiyyət isə 7 milyonluq xalqın içərisində hələlik bir nəfərdir, təkcə bir nəfər: Heydər Əliyev. Qurtardı !".

Muxtar respublika Ali Məclisinə rəhbərlik etdiyi dövrdə – 1991-ci ilin sentyabrından 1993-cü ilin iyun ayınadək ümummilli lider regionun yeganə mətbu orqanı olan "Şərq qapısı" qəzetinin maliyyə fəaliyyəti ilə yaxından maraqlanmış, keçid dövrünün ağır günlərində onun müntəzəm nəşri üçün lazımi kömək göstərmişdir. Bu səbəbdən həmin dövrdə qəzetin tirajı xeyli artmış, o, Bakıda və digər bölgələrimizdə də maraqla oxunmuşdu.

Qəzetin ən çox yaddaqalan və tədqiqatçıların marağını özünə çəkən dövrü, heç şübhəsiz ki, ümummilli lider Heydər Əliyevin çətin günlərdə həmyerliləri ilə birgə keçirdiyi görüşlər olacaq. Böyük dövlət xadimi Heydər Əliyevin həyat və siyasi fəaliyyətinin Naxçıvan dövrünə müraciət edən tədqiqatçılar üçün də qəzetin bu dövrkü çıxışları ən yaxşı bələdçi rolunu oynayır. Dahi siyasətçi o dövrdə həm də ağır iqtisadi blokada şəraitində yaşamasına baxmayaraq, dünyanın nəzər-diqqətini də mətbuatın gücü ilə bu qədim diyara yönəltməyi bacarmışdı. Buna konkret və canlı bir misal göstərmək istəyirəm.

1992-ci ilin mayı Azərbaycanın, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın müasir tarixinin ən mürəkkəb və gərgin dövrünü təşkil edir. Həmin ayda Bakıda siyasi qüvvələrin başı hakimiyyət mübarizəsinə qarışdığından və Qarabağı yaddan çıxarmalarından istifadə edən Ermənistan ölkəmizə qarşı hücumlarını genişləndirərək Şuşa və Laçın şəhərlərini tutmuş, bununla Dağlıq Qarabağın işğalını başa çatdırmışdı. Ermənilər yaranmış şəraitdən istifadə edərək Naxçıvanı da ələ keçirmək üçün mayın 1-də muxtar respublikaya qarşı hərbi təcavüzə başlamışdı. Bu təcavüz bir neçə gün davam etmiş, yalnız ulu öndərin gərgin siyasi və diplomatik səyləri nəticəsində onun qarşısını müvəqqəti almaq mümkün olmuşdu. Lakin mayın 18-də ermənilər yenidən hücuma keçərək bir sıra sərhəd məntəqələrini ələ keçirməyə çalışmışdılar. Düşmənin hücumu nəticəsində hərbçilər və dinc əhali arasında çoxlu şəhid və yaralanan olmuş, on min nəfərdən artıq əhalinin yaşadığı Sədərək kəndi dağıdılmışdı. Bir neçə sərhəd kəndinin əhalisi isə təhlükəsiz yerə köçürülmüşdü. Təbii ki, belə mürəkkəb

şəraitdə Heydər Əliyevin foneomenal siyasətçi dühası, onun beynəlxalq aləmdəki nüfuzu regionu real işğal təhlükəsindən xilas etmişdi.

Həmin günlərdə Ali Məclisin sədri kimi Heydər Əliyev xarici dövlətlərin başçılarına, beynəlxalq qurumlara, dünya ictimaiyyətinə müraciət edərək Ermənistanın Azərbaycan torpaqlarına, o cümlədən Naxçıvana hərbi təcavüzü barədə məlumat vermiş, bu təcavüzü dayandırmaq üçün əməli tədbirlər görülməsini tələb etmişdi. Məhz dahi siyasətçinin müraciətindən sonra bir çox ölkələrin, o cümlədən Rusiyanın informasiya agentliklərinin, mətbuat orqanlarının nümayəndələri Naxçıvana gələrək buradakı vəziyyət haqqında dünya ictimaiyyətini məlumatlandırmışdılar. Ulu öndərin sonralar qeyd etdiyi kimi, bu, o zaman ölkəmiz üçün böyük nailiyyət idi. Çünki Dağlıq Qarabağ münaqişəsi başlanandan ölkəmiz günahlandırılmış, mətbuat orqanları, dünya ictimaiyyəti həmişə ermənilərin xeyrinə, birtərəfli məlumatlar almışlar. Heydər Əliyevin səyləri nəticəsində dünya ictimaiyyətində ilk dəfə olaraq ölkəmiz haqqında düzgün, obyektiv təsəvvür yaradılmışdı və Ermənistanın təcavüzkar mövqeyi ifşa edilmişdi.

Bu yerdə "İnterfaks" agentliyinin baş direktorunun xatirələrindən bir iqtibas gətirmək istəyirəm: "…1992-ci ilin baharında mənə dedilər ki, bizə feldyeger gəlib. Mən hətta bunun nə demək olduğunu anlamadım. İndiyədək bizim bu xidmətlə əlaqəmiz olmamışdı. Mənim kabinetimə bir zabit daxil oldu, çantasından üzərində iri qırmızı hərflərlə "hökumət" sözləri yazılmış teleqram çıxardı, mən beləsini heç vaxt görməmişdim və o, məndən teleqramı aldığıma görə qol çəkməyi xahiş etdi. Teleqramın Naxçıvandakı vəziyyətlə bağlı informasiyadan ibarət olması məni çox təəccübləndirdi. Aşağıda imza var idi: "Heydər Əliyev ".

Biz, əlbəttə, məlumatı həvəslə hazırladıq və buraxdıq. Bu gündən etibarən bizim Naxçıvandakı yeni "ştatdankənar müxbirlə" sıx işimiz başladı. Bu qeyri-adi əməkdaşlıq onun Azərbaycan prezidenti seçilməsinədək davam etdi. Az qala hər gün bizə feldyegerlər gəlir və onun imzası ilə bizə "hökumət" teleqramları gətirirdilər".

Ümummilli lider Heydər Əliyevin Tbilisidəki "Gürcüstan" qəzeti ilə də yaxından əməkdaşlığı olub. Sonralar ulu öndər bu barədə belə demişdi: "O vaxt Naxçıvanda idim. Naxçıvan blokada şəraitində idi. Gediş-gəliş yox idi. Mənim üçün gözlənilməyən bir hal idi ki, gürcü müxbir Tbilisidən Naxçıvana gəldi. Tamamilə qəflətən. Məni arayıb tapdılar. Orada bacımın kiçik bir evində yaşayırdım. Məndən bir çox məsələlər barəsində müsahibə götürdülər. Mən azad və müstəqil bir adam idim. Hansı bir qəzetçi, jurnalist mənə müraciət edirdisə, suallarına cavab verirdim… Sonra həmin müsahibəni indi "Gürcüstan" adını daşıyan qəzet Azərbaycan dilində dərc etdi və onu mənə göndərdilər. O vaxt mənim üçün bu, böyük mənəvi dayaq idi."

Naxçıvan mətbuatının lideri hesab edilən "Şərq qapısı" qəzetinin müstəqillik dövrümüzdə ilk yubileyi 1996-cı ilin dekabr ayında keçirilmişdir. Xalqımızın ümummilli lideri Heydər Əliyev qəzetin 75 illik yubileyi münasibətilə redaksiya kollektivinə ünvanladığı təbrik məktubunda kollektivin əməyini yüksək qiymətləndirmişdi: "Azərbaycan müstəqillik əldə etdikdən sonra "Şərq qapısı" qəzetinin kollektivi öz fəaliyyətində canlı dönüş yaratmış, ölkəmizdə gedən yeni cəmiyyət quruculuğu və demokratik dəyişikliklərin həyata keçirilməsi prosesinə fəal qoşulmuşdur".

Qəzetin fəaliyyətində növbəti canlanma 2000-ci ilin əvvəllərində başlanılıb. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikasında dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətinin yaxşılaşdırılması tədbirləri haqqında" imzaladığı sənəd ümummilli liderimizin "Azərbaycan milli mətbuatının 125 illiyi haqqında" sərəncamından qaynaqlanmışdır. Məhz bu sərəncamlardan sonra yerli qəzetlərin maddi-texniki bazası xeyli gücləndirilmiş, onların problemləri həllini tapmışdır. Mətbu sözün dəyər və kəsərinə verilən qiymət jurnalistlərin fəaliyyətini xeyli canlandırmışdır. Artıq üç ildir ki, muxtar respublikada rayon (şəhər) qəzetlərinin həftədə bir dəfə nəşri təmin olunur.

Region mətbuatında müsbət ənənələr bu gün də yaşadılır. Cari ildə ölkəmizdə analoqu olmayan nəşriyyat-redaksiya kompleksi milli mətbuatımızın 135 illik yubileyi günündə Naxçıvan şəhərində istifadəyə verildi. 4 mərtəbədən ibarət olan müasir tipli obyekt inşa olunub, Almaniya çap avadanlıqları quraşdırılıb. Yeni qəzet sexində məhsuldarlığı saatda 15 min nüsxə olan "KBA Rapida-75″ markalı ofset maşını, cild sexində kitab və jurnal vərəqlərini avtomatik yığıb-bükərək hazır məhsula çevirən poliqrafiya avadanlıqları – kağız doğrayıcı, kəsici, qatlayıcı, cildləyici qurğular quraşdırılıb. Yeni poliqrafiya müəssisəsində qəzetlərin böyük formatda və rəngli çapı ilə yanaşı, müxtəlif çeşiddə kitabların, jurnalların, dəftərxana məhsullarının, sadə və ciddi hesabat blanklarının nəşri üçün də imkanlar yaranıb. İndiyədək bu cür məhsullar kənarda çap olunurdu.

Rayon (şəhər) qəzetlərinin burada böyük formatda və rəngli çapı isə ümumən ölkəmizin mətbuat həyatında mühüm hadisəyə çevrildi.

Obyektin açılış mərasimində iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov "Azərbaycan" nəşriyyatından sonra Naxçıvanda belə bir müəssisənin quraşdırılmasını dövlətimizin

mətbuatın inkişafına göstərdiyi diqqət və qayğının bariz nümunəsi kimi dəyərləndirdi. Bu, həm də mətbuata Heydər Əliyev qayğısının uğurla davam etdirilməsidir.

**“Xalq qəzeti“.-**2010.-5 sentyabr.-N 195.-S.4.

## AZƏRBAYCAN ELM VƏ TƏHSİLİNİN HİMAYƏDARI

**İlham MƏMMƏDZADƏ,**
AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun direktoru

**Ümummilli lider Heydər Əliyev fəaliyyətinin bütün dövrlərində ilk növbədə xalqın intellektual gələcəyini düşünmüşdür**

**Bəşər tarixində silinməz iz qoymuş böyük şəxsiyyətlərin elm və təhsilə münasibəti, bu sahələrin inkişafına verdikləri töhfələr onların əbədiyaşarlığını təmin edən başlıca amillərdən biridir. Müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyev də hakimiyyətinin bütün mərhələlərində elm və təhsilin inkişafına xüsusi qayğı ilə yanaşaraq, ilk növbədə, xalqın intellektual gələcəyini düşünmüşdür. Elmi-intellektual sahədə qazanılan nailiyyətləri dövlət quruculuğu prosesinin vacib şərti və etibarlı təminatı hesab edən ulu öndər milli təhsil sisteminin mütərəqqi prinsiplər əsasında inkişafı naminə bütün zəruri tədbirləri həyata keçirmişdir.**

Sivil dünya gerçəklikləri ilə çulğaşan fəal maarifçilik kursunun həyata keçirilməsi, mütərəqqi yeniliklərin tətbiq olunması yolu ilə milli təhsil sisteminin müasirləşdirilməsi, dövlət idarəçiliyi üçün yüksək mənəvi-əxlaqi keyfiyyətləri, intellekti, savadı ilə fərqlənən ixtisaslı kadrların yetişdirilməsi məsələləri ulu öndər Heydər Əliyevin fəaliyyətinin bütün mərhələlərində prioritet məsələlərdən olmuşdur. Ümummilli lider hələ Azərbaycana birinci rəhbərliyi dövründə böyük uzaqgörənliklə həyata keçirdiyi elm, təhsil və mədəniyyət siyasəti müstəqillik illərində milli ziyalı elitasının intellektual potensialının yüksəkliyində özünü göstərməklə, aparılan islahatların praktik nəticələr verməsini təmin etmişdir. 70-80-cı illərdə ulu öndərin rəhbərliyi altında təhsil müəssisələrinin zəngin şəbəkəsinin yaradılması və onların zəngin maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənarda yüksək ixtisaslı mütəxəssislərin, o cümlədən hərbi kadrların yetişdirilməsi, Elmlər Akademiyasının elmi-tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunması gələcəkdə milli müstəqilliyimiz üçün zəruri intellektual zəmin yaratmışdır. Heydər Əliyev peşəkar strateq olaraq daim qeyd etmişdir ki, intellektual baza istənilən ölkədə dövlət müstəqilliyinin əsasını təşkil edən mühüm amillərdən biridir. Ulu öndərin yeritdiyi siyasətin uzaq hədəflərə hesablanması da məhz onun dərin elmi prinsiplər üzərində qurulması, zəngin intellektual potensiala söykənməsi ilə şərtlənir.

Cəmiyyətin tərəqqisinin, elm, mədəniyyət və mənəviyyatın inkişafının ən qüdrətli vasitəsi rolunu oynayan elm və təhsilə qayğının artırılması, bu işə dövlət siyasətinin üstün istiqaməti kimi yanaşılması Heydər Əliyevin rəhbər və vətəndaş epoxasının ümdə qayəsini ifadə edən önəmli cəhət kimi bu gün də böyük rəğbətlə xatırlanır. Məhz bu amil ötən əsrin 70-ci illərindən başlayaraq, Heydər Əliyev epoxasının mənəvi yüksəliş tarixinin inkaredilməz gerçəkliyinə çevrilmişdir. Böyük strateq mövcud ideologiyanın qəlibləri çərçivəsində belə, Azərbaycanda milli təhsil sisteminin sıxışdırılmasına yol verməmiş, əksinə, onu yüksəltmək yolunda bütün imkanlardan maksimum dərəcədə istifadə etməyi bacarmışdır. Heydər Əliyev dühasının böyüklüyü də məhz ondadır ki, o, bütün fəaliyyəti boyu bu sahələrə diqqət və qayğısını əsirgəməmiş, cəmiyyətdə yüksək bilikli, intellektual və elitar təbəqənin formalaşmasına çalışmışdır. Təsadüfi deyildir ki, 1969-1982-ci illər həm də Azərbaycan elminin, təhsilinin intibah dövrü kimi xatırlanır. Ulu öndərin şəxsi təşəbbüskarlığı, qətiyyəti və iradəsi nəticəsində həmin illərdə 700-dən artıq məktəb binası tikilərək istifadəyə verilmişdir. Bu illərdə respublikada ali təhsil müəssisələrinin sayı 12-dən 17-yə, burada təhsil alan tələbələrin sayı isə 70 mindən 100 minə çatmışdır.

Ümummilli lider Heydər Əliyevin 70-ci illərdə minlərlə azərbaycanlı gənci respublikamızın hüdudlarından kənarda yüksək ali təhsil almasına, ixtisaslı kadr kimi yetişməsinə hər cür kömək göstərməsi də onun xeyirxahlığının və bu sahəyə verdiyi önəmin bariz ifadəsidir. Respublikaya birinci rəhbərliyi dövründə 10 mindən artıq gənci keçmiş SSRİ respublikalarının ali məktəblərinə təhsil almağa göndərən Heydər Əliyev yüksək ixtisaslı, vicdanlı və peşəkar kadrların hazırlanması, dövlət idarəçiliyi sisteminin sağlamlaşdırılması məsələlərinə ciddi fikir vermişdir. Heydər Əliyev Azərbaycanda bir sıra yeni ixtisaslar üzrə – informasiya texnologiyaları, beynəlxalq hüquq, beynəlxalq münasibətlər, aviasiya və s. – mütəxəssis hazırlayan ali məktəblərin olmadığını nəzərə alaraq minlərlə azərbaycanlı gəncin Moskva, Kiyev, Minsk və başqa şəhərlərdəki nüfuzlu ali məktəblərə göndərilməsini təmin etmişdir.

Ümummilli lider bu ali məktəblərdə müsabiqədənkənar oxumağa gedən gənclərin sayının ildən-ilə artırılmasına Moskvadan böyük inadkarlıqla icazə alır, onların təhsilinin Ümumittifaq büdcəsindən maliyyələşdirilməsinə nail olur, həmin gənclərin məişət şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirirdi. Ulu öndər həmin illərdə müttəfiq respublikalarda, əsasən də Rusiyada təhsil almaq hüququ qazanan gənclərin yüksək səviyyədə yola salınması və qarşılanmasını da müsbət ənənə kimi formalaşdırmışdı. Böyük strateq

sonralar qeyd edirdi ki, 70-80-ci illərdə ideologiyadan, ictimai-siyasi, iqtisadi sistemdən asılı olmayaraq, Azərbaycan xalqının böyük bir nəsli mükəmməl təhsil almış, yüksək səviyyəyə çatmış, dünya elminə və mədəniyyətinə sahib olmuşdur.

Ötən əsrin sonlarına doğru istiqlaliyyətini əldə edən Azərbaycan yenə də məhz Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə formalaşmış zəngin iqtisadi və elmi potensiala istinad etmişdir. Fəqət, 1991-1993-cü illərdə respublikamızda hökm sürən ümumi böhranlı vəziyyət – iqtisadi tənəzzül prosesinin dərinləşməsi, ictimai-siyasi sabitliyin kövrək xarakter daşıması elm və təhsil sahəsində də əsaslı problemlərə gətirib çıxarmışdı. Azərbaycan elmi tənəzzül girdabında çırpınır, nüfuzlu alimlər, bütün həyatını təhsilə həsr etmiş adlı-sanlı müəllimlər çörək ardınca xaricə üz tutur, mənəvi depressiya elmi mühitə getdikcə daha çox hakim kəsilirdi. Bu böhranlı vəziyyəti yalnız ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə respublika rəhbərliyinə qayıdışından sonra aradan qaldırmaq, elm və təhsil sahəsində dövlət siyasətinin mühüm istiqamətlərini müəyyənləşdirmək mümkün olmuşdur. Ulu öndər həmin mərhələdən ictimai həyatın ən müxtəlif sahələrində, o cümlədən elmi-intellektual sferada hökm sürən tənəzzülün qarşısını almış, təhsilin öz məcrasına düşməsi, inkişafı üçün əlverişli iqtisadi şərait, hüquqi və mənəvi-əxlaqi mühit formalaşdırmışdır. Elmin inkişafına, bu prosesi həyata keçirən çoxminli ziyalılar ordusuna diqqət və qayğı gücləndirilmiş, Heydər Əliyev Azərbaycan elminin milli əsaslar üzərində dünyaya inteqrasiyanı başlıca vəzifə kimi aktuallaşdırmışdır.

Heydər Əliyevin ölkənin gələcək inkişafı baxımından ən uzaqgörən və müdrik addımı Azərbaycanın yeni neft strategiyasının hazırlanaraq elmi prinsiplər üzərində həyata keçirilməsi olmuşdur. 1994-cü ilin 20 sentyabrında dünyanın iri neft şirkətləri ilə imzalanmış “Əsrin müqaviləsi”, bu mənada, respublikamızın dövlət müstəqilliyinin möhkəmləndirilməsində müstəsna rol oynamışdır. “Əsrin müqaviləsi” yeni sosial-iqtisadi inkişaf modelinin həyata keçirilməsi üçün zəruri əsaslar formalaşdırmaqla yanaşı, elmi-texniki yeniliklərin, müasir rabitə və informasiya texnologiyalarının ölkəmizdə sürətlə tətbiqində böyük canlanma yaratmışdır. Neft sektoruna və iqtisadiyyatın digər sahələrinə milyardlarla investisiya yatıran Qərb şirkətləri işlədikləri ölkədə informasiya cəmiyyətinin bərqərar olmasında, insan kapitalının formalaşdırılması prosesində yaxından iştirak etmişlər. Qısa zamanda Azərbaycana ən yeni, zəngin resurslara malik texnologiyalar gətirilmiş, bu tendensiya bir tərəfdən iqtisadi inkişafın dinamikasını sürətləndirməklə yanaşı, digər tərəfdən vətəndaşların intellektual səviyyəsinin yüksəlişinə ciddi təkan vermişdir.

Ulu öndər Heydər Əliyev milli təhsilin inkişafı və onun qabaqcıl dünya dövlətlərinin təhsil sisteminə inteqrasiyasını da ciddi vəzifə kimi müəyyənləşdirmiş, bu sahədə aparılacaq islahatların mahiyyətini açıqlamışdır. Ümummilli liderin irəli sürdüyü təhsil konsepsiyasının əsas qayəsini müstəqilliyin daha da möhkəmləndirilməsi, demokratik və hüquqi cəmiyyət quruculuğu prosesinin sürətlə həyata keçirilməsi, dövlətin iqtisadi potensialının gücləndirilməsi kimi ümdə prinsiplər təşkil etmişdir. Heydər Əliyev insan hüquq və azadlıqlarının təminatı baxımından vətəndaşların təhsil hüququnun reallaşdırılmasına böyük önəm verdıyini çıxışlarında hər zaman xüsusi vurğulamışdır. Təhsil hüququ 1995-ci il ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Konstitusiyasında hər bir vətəndaşın vacib hüquqlarından biri kimi elan olunmuşdur. Dövlət vətəndaşların pulsuz icbari, ümumi və orta təhsil almaq hüququnu təmin edir. Konstitusiyanın bu müddəası Azərbaycan Respublikasında təhsil fəaliyyətinin əsas prinsipidir.

Hər bir mütərəqqi islahatın uğuru, şübhəsiz, onun ictimai şüurla nə dərəcədə səsləşməsi, cəmiyyət tərəfindən qəbul olunub-olunmamasından bilavasitə asılıdır. Bu gerçəklikdən çıxış edən ulu öndər Heydər Əliyev ilk gündən milli təhsil sistemində islahatların təkamül yolu ilə aparılması tərəfdarı kimi çıxış etmiş, bu mövzuda ictimai müzakirələrin açılmasına nail olmuşdur. “Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri, tədrici dəyişikliklər xarakteri daşıyır…Təhsil Qanunu elə bir qanundur ki, təhsil islahatları elə islahatlardır ki, iqtısadiyyatdan, maliyyədən, başqa sahələrdən fərqli olaraq, bunda bütün cəmiyyətin iştirakı lazımdır” – deyən ulu öndər bu məsələyə böyük həssaslıqla yanaşdığını nümayiş etdirmişdir.

Prezident Heydər Əliyevin 30 mart 1998-ci il tarixdə imzaladığı “Azərbaycan Respublıkasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası haqqında” sərəncamda müstəqil Azərbaycanın təhsil sistemində beynəlxalq standartlara uyğun islahatların həyata keçirilməsi, təhsilin inkişafı və onun maddi-texniki bazasının möhkəmləndirilməsi, Avropa təhsil məkanına inteqrasiyanın təmin edilməsi kimi mühüm vəzifələr önə çəkilmişdir. 15 iyun 1999-cü il tarixdə ulu öndər tərəfindən təsdiq olunmuş “Azərbaycan Respublikasında Təhsil İslahat Proqramı”nın əsas mahiyyətini isə təhsil sistemində islahatların təkamül yolu ilə, mərhələlərlə aparılması, tarixən formalaşmış zəngin, mütərəqqi ənənələrin, təcrübənin qorunub saxlanılması, dünya təhsil sisteminin Azərbaycanın milli xüsusiyyətləri ilə çulğaşan prinsiplərinin tətbiqi məsələləri təşkil edir. İslahat proqramının həyata keçirilməsi nəticəsində təhsilin məzmunu yeniləşdirilmiş, yeni proqramlar və dərsliklər hazırlanmış, ayrı-ayrı təhsil sahələri və fənlər üzrə standartların hazırlanması istiqamətində ciddi iş aparılmışdır.

Elm və təhsil sahəsində ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin davamlılığını 7 ildə inamla davam etdirən və onu yeni çalarlarla zənginləşdirən Azərbaycan Prezidenti İlham Əliyev praqmatik və rasional düşüncəli siyasətçi kimi xalqın gələcəyinin məhz elm və təhsillə bağlı olduğunu çıxışlarında dəfələrlə vurğulamış, fəal milli maarifçilik xətti yeridərək dünya təhsil sisteminə inteqrasiyanı vacib saymışdır. Müstəqil Azərbaycan dövləti də qloballaşan dünyanın bərabərhüquqlu subyekti kimi, öz inkişafını, sadəcə, təbii sərvətlərin gətirdiyi dividendlərə bağlamır və mövcud resurslarını sırf insan faktorunun prioritetə çevrilməsi yönümündə qurur. Respublika iqtisadiyyatının yüksək inkişaf tempi təhsilin və elmin dünya standartları səviyyəsinə qalxması üçün yeni dövrün tələblərinə cavab verən çevik islahatlar aparmağa imkan yaratmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev məhz bu reallıqdan çıxış edərək dövlətə rəhbərlik fəaliyyətinin ilk günlərindən təhsil və elm sahəsində böyük yüksəlişin təmin olunmasını başlıca prioritetlərdən biri kimi götürmüşdür. Son illərdə təhsil işçilərinin orta aylıq əmək haqqı davamlı şəkildə artırılmışdır. Prezident İlham Əliyevin 2010-2011-ci dərs ili qarşısında imzaladığı sərəncamlar da dövlətin sosialyönümlü siyasətinin daha bir nümunəsi olmaqla, təhsil işçilərinin rifah halınının yüksəldilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Dövlət başçısının 6 sentyabr 2010-cu il tarixli sərəncamı ilə dövlət büdcəsindən maliyyələşdirilən təhsil müəssisələrində (ali təhsil müəssisələri istisna olmaqla) çalışan işçilərin vahid tarif cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2010-cu il sentyabrın 1-dən orta hesabla 10 faiz artırılmışdır. Eyni tarixdə imzalanmış daha bir sərəncamla doktorantların, ali, orta ixtisas, peşə məktəblərinin, peşə liseylərinin tələbələrinin və şagirdlərinin təqaüdləri də əhəmiyyətli dərəcədə artırılmışdır.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, ixtisaslı kadrların hazırlanmasına qoyulan investisiyalar insanın formalaşmasına qoyulan investisiya sayılır. Başqa sözlə, bu, insana kapital qoyuluşu da adlandırılır və belə investisiyalar insan kapitalı yaradır. Müasir dövrdə bu növ investisiyalar rəqabətdə üstun olmağın həlledici amili sayılır. İnsana kapital qoyuluşu – insanların mütəxəssis kimi hazırlanmasına qoyulan investisiyadır. Dünya təcrübəsində insana kapital qoyuluşu ən çox gəlir gətirən investisiya hesab olunur. Prezident İlham Əliyevin “Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı haqqında” 19 oktyabr 2006-cı il tarixli sərəncamı da insan kapitalının inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Dövlət proqramı məhz azərbaycanlı gənclərin müəyyən elmi istiqamətlər üzrə dövlət hesabına xaricdə təhsil almalarını nəzərdə tutur. Bu sərəncam əsasında “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” hazırlanaraq Azərbaycan Prezidentinin 16 aprel 2007-ci il tarixli sərəncamı ilə təsdiq olunmuşdur. Azərbaycanlı tələbələrin xaricdə təhsilini təmin etməkdə əsas məqsəd, şübhəsiz, bütün sahələrdə sürətlə inkişaf edən Azərbaycan üçün yüksək səviyyəli kadrların hazırlanmasıdır.

Ümumiyyətlə, dövlət başçısı yalnız son iki ildə elmin inkişafına, bu sahədə problemlərin kompleks həllinə xidmət edən bir sıra sərəncamlar və dövlət proqramları imzalamışdır. Cənab İlham Əliyevin 4 may 2009-cu il tarixli “Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında”, 22 may 2009-cu il tarixli l2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” sərəncamları bu baxımdan xüsusi vurğulanmalıdır.

Azərbaycan Prezidentinin “Azərbaycan Milli Elmlər Akademiyasının gənc alimlərinin Avropanın elmi mərkəzlərində doktorantura təhsilinin maliyyələşdirilməsi haqqında” 2010-cu il 9 fevral tarixli sərəncamı isə respublikada elmi tədqiqatların müasir standartlar səviyyəsində aparılmasını, ölkənin elmi kadr potensialının artırılmasını və Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyasının təmin olunmasını daha da sürətləndirmək məqsədi daşıyır. Sərəncamla Azərbaycan Respublikasının 2010-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Milli Elmlər Akademiyasına gənc alimlərin Avropanın elmi mərkəzlərinin doktoranturalarında təhsil almaları üçün 500 min (beş yüz min) manat məbləğində vəsait ayrılmışdır. Bu, sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində elmi tədqiqatların Avropa səviyyəsinə çatdırılmasını, gənc alimlərin dünya elminə inteqrasiyasını nəzərdə tutur.

Bütün bunların nəticəsidir ki, Birləşmiş Millətlər Təşkilatı (BMT) İnkişaf Proqramının 2010-cu il üçün açıqladığı “İnsan İnkişafı Hesabatı”nda respublikamız daha ön mövqelərdə qərar tutmuşdur. Məlumat üçün qeyd edək ki, bu indeks əhalinin rifahını ümumi daxili məhsuldan daha geniş şəkildə ehtiva edir və insan inkişafının üç meyarını özündə birləşdirir: uzun və sağlam ömür (orta ömür uzunluğu əsasında hesablanır); təhsil səviyyəsi (böyüklər arasında savadlılıq, həmçinin ibtidai, orta və ali məktəblərdə təhsil alanların say nisbəti əsasında hesablanır); layiqli yaşayış standartları (alıcılıq qabiliyyəti pariteti, gəlir əsasında hesablanır). Bu indeks həm də insan inkişafının və gəlirlə rifah arasında qarşılıqlı mürəkkəb münasibətlərin nəzərdən keçirilməsi üçün daha geniş prizmanı təmin edir.

BMT-nin İnkişaf Proqramının 4 noyabr 2010-cu il tarixli yeni hesabatı da insan inkişafı indeksinin davamı olaraq ayrı-ayrı dövlətlərin inkişaf dinamikası haqqında müasir yanaşmaları, o cümlədən qeyri-

bərabərliyin aradan qaldırılmasına, gender məsələlərinə və yoxsulluğun azaldılmasına yönəlmiş yeni metodları əks etdirir. 182 ölkənin yer aldığı hesabatda Azərbaycan Rusiya və Qazaxıstandan sonra 67-ci, Gürcüstan 74-cü, Türkiyə isə 83-cü yerdə qərarlaşmışdır. Müqayisə üçün bildirək ki, 2005-ci ildə hesabatda 101-ci yerdə olan Azərbaycan 2010-cu ildə 67-ci yerə yüksəlmişdir. Respublikamız 2000-2010-cu illər arasında postsovet məkanında insan inkişafı indeksinə görə illik 1,77 artım dərəcəsi ilə ən yüksək göstəriciyə imza atmışdır. Nəticədə Azərbaycan "orta insan inkişafı" qrupu ölkələrini tərk edərək, "yüksək insan inkişafı" ölkələri kateqoriyasına daxil olmuşdur. Sevindirici məqam həm də bundan ibarətdir ki, Azərbaycan hətta Çin və Hindistan kimi potensiallı ölkələri də geridə qoymuş, insan inkişafı indeksinin orta illik tempinə görə, postsovet məkanında son 10 ildə aparıcı dövlət olmuşdur.

Təhsil və elm bilik, müasirlik, savad, gələcəyə açılmış qapılar deməkdir. Prezident İlham Əliyev sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində Azərbaycan xalqının intellektual gələcəyini təmin etməyin yeganə yolunu məhz bu sahələrin ən müasir tələblər səviyyəsinə çatdırılmasında görür. Görülən işlər deməyə əsas verir ki, yaxın illərdə Azərbaycanda elm və təhsil sahəsində özünü göstərən müəyyən problemlər də əsaslı surətdə aradan qalxacaq, milli təhsilimizin keyfiyyəti daha da yüksələcəkdir.

**"Xalq qəzeti".-**2010.-8 dekabr.-N 269.-S.3.

# HEYDƏR ƏLİYEV İDEYALARI MÜASIR TƏHSİL QURUCULUĞUNUN ƏSASIDIR

**Misir MƏRDANOV,**
Azərbaycan Respublikasının təhsil naziri

**Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır. Təhsil də daim təkmilləşdirilməlidir.**
**Heydər ƏLİYEV**

Azərbaycan xalqının böyük oğlu, dünya azərbaycanlılarının milli lideri Heydər Əliyev tarix baxımından cismən bizdən uzaqlaşdıqca millətimiz üçün bu əvəzsiz itkinin ağırlığı daha çox duyulmaqdadır. Mübaliğəsiz demək olar ki, bu qüdrətli şəxsiyyət, nadir zəka sahibi yaşadığı, fəaliyyət göstərdiyi dövrün canlı əfsanəsidir. Tarixə nəzər salsaq, çox az dövlət xadimi göstərmək olar ki, öz xalqının, vətəndaşı olduğu ölkənin ictimai-siyasi, sosial-iqtisadi, milli mənəvi tərəqqisindəki xidmətlərinə görə ulu öndərimiz səviyyəsinə yüksələ bilsin.

İnkarolunmaz həqiqətdir ki, ötən əsrin 70-ci illərindən etibarən 30 ildən artıq bir müddətdə Azərbaycanda iqtisadiyyatın, elm, təhsil və mədəniyyətin dirçəlişi və dinamik inkişafı, eləcə də dövlət müstəqilliyinin möhkəmləndirilməsi, qısa bir zamanda Azərbaycanın beynəlxalq aləmdə böyük nüfuz qazanması bilavasitə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Ulu öndərin genişmiqyaslı, çoxcəhətli fəaliyyətində təhsilin inkişafına diqqət və qayğı prioritet sahə kimi mühüm yer tuturdu. Təhsilin aktual problemlərini və perspektivlərini incəliklərinə qədər dərindən bilən, təhsilin cəmiyyətdə rolunu və şəxsiyyətin formalaşmasında əhəmiyyətini daim yüksək qiymətləndirən dahi rəhbərin təhsillə bağlı dəyərli mülahizə və müddəaları, sözün əsl mənasında, müasir pedaqoji fikir tariximizin nadir incilərindəndir. Cəsarətlə demək lazımdır ki, güclü məntiqə və qibtə olunası uzaqgörənliyə əsaslanmış həmin mülahizə və müddəalar, tarixi tövsiyələr həm keçmiş SSRİ dövründə, eləcə də müstəqillik illərində Azərbaycan təhsilinin inkişaf yolunun proqramına çevrilmişdi. Bu böyük şəxsiyyətin hələ sovet ideologiyasının hökm sürdüyü illərdə təhsil sahəsi ilə bağlı irəli sürdüyü fikirləri bu gün üçün müasir səslənən ideyalarla müqayisə etdikdə onun zamanı necə və hansı səviyyədə qabaqladığına heyran olmaya bilmirsən. Aparılan araşdırmalar göstərir ki, ulu öndər özünün nitq və çıxışlarında, pedaqoji ictimaiyyətlə görüşlərində təhsilin bütün pillələrini əhatə edən ən zəruri, aktuallığı ilə hamını düşündürən məsələlərə toxunmuş, təhsilin məzmunu, idarəolunması, təlim-tərbiyə prosesinin mahiyyəti, cəmiyyətdə müəllimin rolu barədə konseptual müddəalar irəli sürməklə təhsil sistemi işçiləri qarşısında dayanan ən ümdə vəzifələrə aydınlıq gətirmişdir.

Gənc nəslin müasir tələblər zəminində təhsillənməsi, gənclərin bilik və intellektual səviyyəsinin yüksəldilməsi, onların gələcəkdə kamil mütəxəssis və ləyaqətli vətəndaşlar kimi yetişməsi ulu öndərimizi daim düşündürürdü. Bu mənada hələ 35 il bundan əvvəl, 1975-ci il avqustun 28-də Azərbaycandan kənarda təhsil almağa göndərilən tələbələrlə görüşündə söylədiyi "Siz bu əsrin axırıncı onilliklərində və gələn əsrin əvvəllərində işləyəcəksiniz. O zaman elmi-texniki tərəqqi üfüqlərinin necə cazibədar olacağını bu gün təsəvvür etmək mümkündür. Sabahkı gün sizə yeni, yüksək tələblər verəcəkdir. Əgər mütəxəssis həqiqətən yaradıcı şəxsiyyətdirsə, o, sadəcə olaraq, zamanla ayaqlaşmalı deyil, həmişə zamanı bir qədər qabaqlamalıdır. Bu isə o deməkdir ki, daim öyrənmək lazımdır, buna görə də bilik, bacarıq, vərdiş bünövrəsi möhkəm olmalıdır" fikri hazırkı dövrün tələbləri və müasir yanaşmalarla necə də həmahəng səslənir. Həmin nitqində gənclərə müraciət edərək irəli sürdüyü "İqtisadi və mədəni quruculuq sürəti də, gələcəkdə respublikamızın ictimai həyatının səviyyəsi də nəticə etibarı ilə sizdən, gənclərin bütün indiki nəslindən, onların bacarığından, qabiliyyətindən, biliyindən asılı olacaqdır", "Siz elmi-texniki inqilabı irəli aparmalı, elm və mədəniyyəti inkişaf etdirməli, cəmiyyətin yeni maddi və mənəvi sərvətlərini yaratmalı olacaqsınız" müddəaları ilə isə ümummilli liderimiz əslində müəllimlərin, bütövlükdə təhsil müəssisələrinin fəaliyyətinin nəticələrini xüsusi olaraq diqqətə çatdırmaqla təhsil sisteminin ən zəruri vəzifəsini müəyyənləşdirmişdir.

Cəsarətli və uzaqgörən siyasətçi, müdrik dövlət rəhbəri olan Heydər Əliyev Azərbaycanın müstəqillik üfüqlərini hələ sovet hakimiyyəti illərində respublikaya rəhbərlik etdiyi dövrlərdə yaxşı görürdü. O əmin idi ki, gələcək müstəqil dövlətin bünövrəsinin möhkəm qurulması üçün təhsilin inkişafına indidən güclü təkan verilməlidir. 1977-ci il avqustun 27-də keçirilmiş tələbələrin respublika fəalları ilə görüşündə gənclərə "Bu gün sizin başlıca vəzifəniz oxumaqdan, müstəqil işləmək vərdişləri əldə etməkdən, həqiqəti axtarmaq və ona nail olmaq bacarığına yiyələnməkdən, yəni kamil mütəxəssis olmaq, cəmiyyətimizə daha çox fayda vermək üçün zəhmətlə, səylə, əzmlə, gündən-günə misilsiz bilik, mədəniyyət, ictimai vərdiş ehtiyatı toplamaqdan ibarətdir" müraciəti, 18 may 1978-ci ildə keçirilən Azərbaycan müəllimlərinin VI qurultayındakı nitqində "Biz bu gün də,

gələcəkdə də gənclərimizi təhsilə, biliyə cəlb etməliyik, təhsilin keyfiyyətini artırmalıyıq, təhsil sahəsini daha da mükəmməlləşdirməliyik" deməsi, şübhə yoxdur ki, məhz həmin qənaətdən irəli gəlirdi.

Ümummilli liderimiz təhsil məsələlərinə toxunarkən onun inkişafyönümlü xarakterini, təhsilin cəmiyyətin, dövlətin, hər bir şəxsin məhz inkişafına, tərəqqisinə xidmət etməli olduğunu dönə-dönə vurğulayır, təhsil xidmətlərinin birmənalı olaraq həmin istiqamətə yönəldilməsini vacib sayırdı. "Məktəb elə bir prosesdir, orqanizmdir ki, burada hamı-şagird də, tələbə də, müəllim də, bütün kollektiv də inkişafdadır" (1997-ci il sentyabrın 1-də Bakıdakı 18 nömrəli məktəbdə keçirilmiş görüşdəki nitqindən) deməklə ulu öndərimiz əslində məktəbdəki inkişafın bilavasitə burada həyata keçirilən təhsilin nəticəsi olduğunu diqqətə çatdırırdı.

Son illər belə bir fikir tez-tez səslənir ki, hər hansı bir ölkənin maddi ehtiyatları, yeraltı və yerüstü sərvətləri nə qədər çox olsa belə, təhsil sahəsində irəliləyişləri yoxdursa, orada inkişaf sürəti də zamanın tələbindən geridə qalacaqdır. Bununla əlaqədar tarixilik baxımından yanaşsaq, ulu öndərimiz bu mülahizəni neçə illər bundan əvvəl "Cəmiyyət təhsilsiz inkişaf edə bilməz" (2001-ci il sentyabrın 1-də Bakıda ilk özəl ümumtəhsil məktəb kompleksinin açılışı mərasimindəki nitqindən) müddəası ilə çox lakonik və sərrast şəkildə ifadə etmiş, təhsilin cəmiyyətdəki roluna bir daha aydınlıq gətirmişdir.

Öz Vətəninin ləyaqətli övladı olan, ölkəmizə rəhbərlik etdiyi dövrdə gərgin və məqsədyönlü fəaliyyəti ilə millətimizə şərəf və başucalığı gətirmiş Heydər Əliyev "Azərbaycan xalqı yüksək elmə, yüksək biliyə, savada malik olan bir xalqdır. Bunlar hamısı uzun illər-keçmişdən indiyə qədər Azərbaycanda yaranmış təhsil sisteminin fəaliyyətinin əməli nəticələri, Azərbaycan müəllimlərinin, alimlərinin gərgin fəaliyyətinin nəticəsidir" (1996-cı il sentyabrın 2-də Bakının Nərimanov rayonunda yeni orta ümumtəhsil məktəbinin açılışı mərasimindəki nitqindən) deməklə xalqının intellektual səviyyəsinə, təhsildə qazanılmış uğurlara böyük qiymət verirdi. Onun 1997-ci il avqustun 29-da keçirilmiş Azərbaycan və xarici ölkələrin ali məktəblərinə qəbul olunmuş tələbələr və onların valideynləri ilə görüşdəki yekun nitqində gənclərə "XXI əsr sizin əsriniz, sizin dövrünüz olacaqdır. Siz və sizin kimi Azərbaycan gəncləri, yeniyetmələri, yüksək təhsilli insanları həmin əsrdə müstəqil, azad respublikamızı yaşadacaqsınız, inkişaf etdirəcəksiniz. Biz bu işləri sizin öhdənizə buraxacağıq" tarixi müraciəti həm ölkəmizin işıqlı sabahına, həm də bu işıqlı sabaha doğru qətiyyətlə addımlayan o dövrün gənclərinə dərin inamından irəli gəlirdi.

Ulu öndərimizin orta məktəb təhsilinin məqsədləri, ümumtəhsil məktəbinin əsas vəzifələri haqqında qiymətli fikirləri bu gün də hamımız üçün aparıcı istiqamət, əsas ideya mənbəyi olmalı, xüsusilə son illər göstərilən məsələlər ətrafında aparılan mübahisələrə, fikir ayrılıqlarına, nəhayət ki, son qoymalıdır. Hələ 32 il bundan əvvəl, 1978-ci il mayın 18-də keçirilmiş Azərbaycan müəllimlərinin VI qurultayında "Çox uzun bir müddət ərzində məktəbin işinə yalnız bir göstəriciyə, əsas hesab edilən göstəriciyə görə qiymət verilirdi: məktəbin nə qədər məzunu tələbə olmuş, ali məktəb diplomu almışdır. Bu nöqteyi-nəzəri dəyişdirmək vaxtı gəlib çatmışdır. Bilikli, bacarıqlı, əməksevər adamlar yetişdirmək məktəbin ən birinci borcudur. Məzun əməyə hazırdırmı-bu gün məktəbin işinin, bütün xalq maarifi sisteminin səmərəliliyi, bax bu meyarla müəyyən edilir", – deyən ümummilli liderimiz 21 il sonra bu tarixi mülahizəni daha da dolğunlaşdıraraq "İnsan təhsilinin əsasını orta məktəbdə alır… Əgər 11 il müddətində uşaq I sinifdən başlayaraq sona qədər köklü təhsil almasa, yaxşı hazırlaşmasa, o gedib universitetə imtahan verə bilməz. Heç lazım da deyil ki, hər bir orta təhsil alan getsin universitetə imtahan versin. Bu, mümkün də deyildir. Bu, keçmişdə də mümkün olmayıbdır, bu gün də mümkün deyildir-ancaq ola bilər, ondan sonra gedib universitetdə ali təhsil almasa da, həyatda yaşayacaqdır, həyatda fəaliyyət göstərəcəkdir, cəmiyyətdə olacaqdır. Əgər onun fundamental, köklü orta təhsili varsa, o, cəmiyyətdə özünə yer tapacaq, çalışacaq, özünü, ailəsini yaşadacaqdır. Amma ən vacibi də odur ki, cəmiyyətimizin qürurlu üzvü olacaqdır", "İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır" (1999-cu il avqustun 31-də respublika təhsil işçiləri və ali məktəblərə daxil olmuş tələbələrlə görüşdəki nitqindən) müddəalarını irəli sürürdü.

Bütün bunlarla yanaşı, ulu öndər biliklərə əzmlə yiyələnməyi, daha çox bilik əldə etməyi, əsas diqqəti biliklərə əsaslanan cəmiyyətin qurulmasına yönəltməyi ən aktual vəzifələrdən biri hesab edir, bu prosesdə orta təhsilin roluna böyük qiymət verirdi. Çox əlamətdar haldır ki, ümummilli liderimizin təhsillə bağlı nitq və çıxışlarındakı hər hansı bir istiqamət üzrə konkret fikir məqsədli mahiyyət daşıyaraq illər ötdükcə məzmun etibarı ilə daha da zənginləşdirilir, bir-birini tamamlayır və nəticədə konseptual xarakterli müddəaya çevrilir. Azərbaycanda siyasi hakimiyyətə qayıdışından təxminən bir il sonra 1994-cü il avqustun 31-də Bakı şəhərinin təhsil işçiləri ilə görüşündəki nitqində dahi rəhbərimiz "Müasir texnikanı, müasir bazar iqtisadiyyatının bütün yollarını mənimsəmək, respublikada tətbiq etmək üçün gələcək nəsli hazırlamaq və keçmiş dövrə nisbətən bir çox yeni ixtisaslar üzrə kadrlar hazırlamaq lazımdır. Şübhəsiz ki, bütün bunlar ali təhsil səviyyəsində olacaqdır. Ancaq bunların əsası orta təhsil illərində qoyulmalıdır. Yəni gənclərin bu istiqamətdə təhsilinin artırılmasının

təməli qoyulmalıdır. Bunu iqtisadiyyatımızın bu günü və gələcəyi tələb edir" söyləməklə həm ölkənin yaxın gələcək üçün aktual sayılan vəzifəsini müəyyənləşdirir, eyni zamanda həmin fikrin məntiqi açıqlanması kimi "Bu günün tələbləri gələcəyin tələbləri baxımından dünyanın hər yerində, bütün ölkələrdə inkişaf etmiş iqtisadiyyatı, texnologiyanı, texnikanı mənimsəmək, onları respublikada tətbiq etmək, ölkəmizin iqtisadiyyatını, mədəniyyətini, təhsilini, elmini dünya standartları səviyyəsinə qaldırmaq üçün gənclərimizə lazım olan fənlərin tədrisini gərək yaxşı təşkil etsinlər. Beləliklə də bizim gənclərimiz gərək bütün əvvəlki nəsillərə nisbətən daha yüksək təhsil almış olsunlar" müddəasını irəli sürürdü.

Sosial-iqtisadi sahələrdə inkişafı dünya standartları səviyyəsinə qaldırmaq üçün nə tələb olunur?! Nələrə nail olmaq lazımdır?! Bu suallara da ulu öndər "Müasir həyat və dünyanın gələcəyi insanlardan daha çox bilik tələb edir. Gələcək bilikli, elmli insanların çiyinləri üstündə qurulacaqdır" (Azərbaycanın və xarici ölkələrin ali məktəblərinə qəbul olunmuş tələbələrin bir qrupu və onların valideynləri ilə görüşdəki yekun nitqindən, 29 avqust 1997-ci il), "Hər bir xalqın səviyyəsini onun bilik səviyyəsi müəyyən edir. Bilik səviyyəsinə də nail olmaq üçün təhsil daim mövcud olmalıdır və o, ardıcıl surətdə inkişaf etməlidir. Biz gələcəkdə Azərbaycanın təhsilinin daha da təkmilləşməsinə, keyfiyyətinin yüksəlməsinə nail ola biləcəyik" (Yeni dərs ilinin başlanması münasibətilə Bakıdakı 18 nömrəli məktəbdə keçirilmiş mitinqdəki nitqindən, 1 sentyabr 1997-ci il) deməklə əsaslandırılmış cavab verir.

Ümummilli liderimizin orta məktəblərdə fənlərin tədrisinin təşkili ilə əlaqədar vurğuladığı tələbi diqqətə çatdırarkən bir amili də qeyd etməyi lazım bilirik ki, bu məsələ ulu öndərimizi bütün vaxtlarda daim düşündürmüşdür. O, fənlərə sadəcə olaraq şagirdlərə müəyyən çərçivədə müvafiq məlumatlar, nəzəri biliklər mənimsədən vasitə kimi deyil, hər şeydən əvvəl, şəxsiyyətin formalaşdırılmasını təmin edən, onlara həyatda müstəqil yaşayıb fəaliyyət göstərmək üçün zəruri həyati bacarıqlar aşılayan mühüm amil kimi baxırdı. Biz haqqında söhbət gedən həmin məsələləri yalnız indi diqqət mərkəzinə gətiririksə, ulu öndərimiz bütün bunlar barədə hələ çox əvvəllər qiymətli fikirlər söyləmişdi. Onun 1975-ci il avqustun 28-də Azərbaycandan kənarda təhsil almağa göndərilən tələbələrlə görüşündə "Yeniliyi dərindən mənimsəmək, yaradıcılıqla düşünməyi bacarmaq, özünə çalışqanlıq, axtarış bacarığı, tədqiqat məharəti aşılamaq lazımdır", "…Əməyin elmi təşkili prinsiplərini yaxşı öyrənmək, kollektiv təcrübəni qiymətləndirməyi, başqalarının rəyinə qulaq asmağı, tənqiddən qorxmamağı, öz işinə tənqidi yanaşmağı bacarmaq lazımdır" kimi gənclərə ünvanladığı dəyərli tövsiyələr hazırda ümumi təhsilin başlıca məqsədlərindən birinə çevrilmişdir. Ulu rəhbərin 1978-ci ildə Azərbaycan müəllimlərinin VI qurultayında irəli sürdüyü "Məktəbdə ana dilinin və ədəbiyyatın tədrisi formalarını və metodlarını daim təkmilləşdirmək, uşaqlarda sözə, obrazlı təfəkkürə məhəbbət hissi aşılamaq, onları mədəniyyət nailiyyətləri ilə, dünya və Azərbaycan poeziyası və nəsri klassiklərinin yaradıcılığı ilə, ədəbiyyatın qızıl fonduna daxil olmuş görkəmli əsərlərlə tanış etmək lazımdır.

Ana dilini, doğma xalqın ədəbiyyatını, mədəniyyətini dərindən bilmək elmli adam üçün zəruri keyfiyyətdir, vətəndaşın şəxsiyyətinin hərtərəfli inkişafı üçün şərtdir", "Bizim məktəb şagirdlərin riyaziyyat, fizika, kimya, biologiya və başqa fundamental fənlər sahəsində möhkəm biliklərə yiyələnməsini təmin etməlidir. Gənclər elmi işçilərin sırasına daha fəal qoşulmalı, elmi-texniki tərəqqinin tətbiq edilməsinin önündə getməlidirlər. Fundamental və texniki fənləri dərindən mənimsəmək, bu fənlərin tədrisi səviyyəsinə daim diqqət yetirmək lüzumu bundan irəli gəlir", "İctimai fənlərin təlimi keyfiyyətinin böyük əhəmiyyəti vardır.

Gənc şəxsiyyətin təşəkkülündə, gənclərin dünyagörüşünün formalaşdırılmasında ictimai fənlərin rolu xüsusilə böyükdür. İctimai fənləri yaxşı bilmək hər bir məktəblidə Vətənə məhəbbət hissinin, xalqın rifahı naminə fədakarlıqla çalışmaq əzminin tərbiyə olunmasına və inkişaf etdirilməsinə kömək edir" müddəaları hazırda müasir səslənməklə ümumi təhsil sisteminə daxil olan həmin fənlərin indiki dövrdə məqsəd və vəzifələrini aydın ifadə edir. Yeri gəlmişkən, qeyd etməyi lazım bilirəm ki, təhsil islahatları çərçivəsində ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu) sənədi, ümumtəhsil fənlərinin kurikulumları hazırlanarkən ümummilli liderimizin bütün bu fikir və mülahizələri aparıcı istiqamət olaraq əsas götürülmüşdür.

Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra təhsilimizin inkişafı, qabaqcıl ölkələrin təhsil sistemlərinə davamlı inteqrasiyası üçün əlverişli şəraitin yarandığı bir vaxtda ulu öndər bu tarixi şansı yüksək qiymətləndirməklə yanaşı, həm də çox vacib bir məqamı diqqətə çatdıraraq "Respublikamız müstəqil dövlət kimi Azərbaycanın öz milli ideologiya konsepsiyasını yaradaraq, inkişaf etdirərək, şübhəsiz ki, təhsil sahəsini də milli məqsədlər, mənafelər əsasında qurmalıdır" (Bakı şəhərinin təhsil işçiləri ilə görüşdə yekun nitqindən, 31 avqust 1994-cü il) vəzifəsini qarşıya qoyurdu. Təxminən 3 il sonra ümummilli lider gələcəyə nikbinliklə baxaraq və irəli sürdüyü həmin vəzifənin tədricən yerinə yetirildiyinə inamını ifadə edərək "Dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də budur ki, biz artıq öz təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq", – deyirdi (Yeni dərs ilinin başlanması münasibətilə Bakıdakı 18 nömrəli məktəbdə keçirilmiş mitinqdəki nitqindən, 1 sentyabr 1997-ci il).

Ulu öndərimiz təhsilin milli məqsəd və mənafelər əsasında qurulması zərurətinə toxunarkən, ilk növbədə, heç şübhəsiz, uşaq və gənclərin əsl azərbaycanlı, əsl vətəndaşlıq, milli mənəvi dəyərlərə sadiqlik ruhunda tərbiyə olunmasını diqqət mərkəzinə çəkirdi. O qeyd edirdi ki, "Təhsil sahəsi müqəddəs bir sahədir. Çünki təhsil sahəsi uşaqları, gəncləri hazırlayıb gələcəyə əsl vətəndaş, yüksək səviyyəli mütəxəssis etmək üçün mövcuddur" (BDU-nun 80 illiyi münasibətilə görüşdəki nitqindən, 11 fevral 2000-ci il), "Respublikamızın, xalqımızın milli xüsusiyyətlərini, milli ənənələrini… heç vaxt unutmaq lazım deyil və bunu heç bir şeyə dəyişmək olmaz" (Azərbaycanın və xarici ölkələrin ali məktəblərinə qəbul olunmuş tələbələrin bir qrupu və onların valideynləri ilə görüşdəki yekun nitqindən, 29 avqust 1997-ci il). Özünün şəxsi keyfiyyətləri və fərdi xüsusiyyətləri ilə millətimizə nümunə olan böyük rəhbərimiz uşaq və gənclərin tərbiyəsində dini dəyərlərin də rolunu yüksək qiymətləndirir, bunları insan mənəviyyatının formalaşmasında əsas amil hesab edirdi. Onun fikrinə görə, "Xalqımızın milli mənəvi dəyərləri, dinimizin adət-ənənələri və dini dəyərləri-hamısı birlikdə bizim milli sərvətimizdir. Bizim bütün milli və dini adət-ənənələrimizin məqsədi insanları saflığa, düzlüyə, paklığa dəvət etməkdən, insanları bu əhvali-ruhiyyədə tərbiyə etməkdən ibarətdir" (Qurban bayramı münasibətilə Mirmövsüm Ağanın ziyarətgahında keçirilən görüşdəki nitqindən, 8 aprel 1998-ci il). Yeri gəlmişkən, ümumtəhsil məktəbləri üçün "Həyat bilgisi" fənninin kurikulumuna "Mənəviyyat" məzmun xətti daxil edilərkən və onun nəticə standartları müəyyənləşdirilərkən ulu öndərin irəli sürdüyü həmin müddəalar ideya istiqaməti kimi əsas tutulmuşdur.

"Ümumi təhsilimizdə, yəni məktəblərimizdə bütün dərslər, bütün fənlər bizim bu günümüzə və gələcəyimizə həsr olunmalıdır" (Respublika təhsil işçiləri və ali məktəblərə daxil olmuş tələbələrlə görüşdəki nitqindən, 31 avqust 1999-cu il) vəzifəsini qarşıya qoyan ümummilli liderimiz, eyni zamanda Azərbaycanın dövlət müstəqilliyinin, dövlət atributlarının mahiyyətinin uşaqlara geniş şəkildə izah olunmasını vacib sayır, bu istiqamətdə görülən işləri şagirdlərin vətənpərvərlik tərbiyəsində mühüm amil hesab edirdi. Bununla yanaşı, ümummilli liderimiz uşaq və gənclərin kamil şəxsiyyət kimi formalaşmasında onların həm doğma ana dilinə, həm də xarici dillərə yiyələnməsinə, ədəbi irsimizi, tariximizi dərindən öyrənmələrinə ciddi diqqət yetirilməsini dönə-dönə vurğulayır, bu işlərin məqsədyönlü şəkildə həyata keçirilməsini məktəbin, bütün müəllimlərin müqəddəs borcu olduğunu bəyan edirdi. Ulu öndərin "Azərbaycan dili öz söz ehtiyatına görə, fikri ifadə etmək imkanlarına görə çox zəngindir. Ancaq lazımdır ki, Azərbaycan dilinin bu zənginliyi, bu böyük imkanları orta məktəbdə ilk təhsilə başlayan hər bir gənc tərəfindən mənimsənilə bilsin və gənclərimiz artıq orta məktəbdə öz dilini, ədəbi dilini, mədəni dilini yaxşı mənimsəsin, öz dilində yaxşı danışa bilsin, öz dilində fikrini ifadə edə bilsin", "Azərbaycan tarixi gərək orta məktəblərimizdə gənclərimizə yaxşı aşılansın. Gənclərimiz öz tarixini, öz tarixi köklərini və öz keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bu günü və gələcək mənəviyyatı bununla bağlıdır", "Ədəbi irsimizin bütün gənclərə, bu gənclər hansı istiqamətdə işləyəcək, çalışacaqlarsa, ondan asılı olmayaraq-çatdırılması, bildirilməsi, tədris olunması çox mühüm bir işdir. Buna ciddi fikir vermək lazımdır", "Lazımdır ki, gənclərimiz orta məktəbi bitirərkən 2-3 xarici dil bilsinlər" (Bakı şəhərinin təhsil işçiləri ilə görüşdə yekun nitqindən, 31 avqust 1994-cü il), "Gənclərimiz nə qədər çox dil bilsələr, bir o qədər zəngin dünyagörüşə malik olacaqlar. Bu, müasir dünyanın tələbləridir" (Azərbaycanın və xarici ölkələrin ali məktəblərinə qəbul olunmuş tələbələrin bir qrupu və onların valideynləri ilə görüşdəki yekun nitqindən, 29 avqust 1997-ci il) müddəaları orta təhsilin yenidən qurulmasını, təhsilin məhz müasir insanda formalaşdırılası dəyərlər sistemi səviyyəsinə yüksəldilməsini təmin edən prioritet istiqamətlərdəndir.

Müdrik dövlət xadimi Heydər Əliyevin müstəqil Azərbaycanın təhsilinin inkişafındakı ölçüyəgəlməz və danılmaz xidməti, heç şübhəsiz, ölkəmizin ümumi təhsil sistemində əsaslı islahatların başlanmasının təşəbbüskarı və ilhamçısı olmasıdır. Vaxtilə keçmiş Sovet İttifaqının rəhbərlərindən biri kimi neçə-neçə strateji əhəmiyyətli sahələrlə yanaşı, bu super dövlətin təhsili də bilavasitə onun nəzarətində olmuş, 1984-cü ildə keçirilən məktəb islahatına rəhbərlik etmişdir.

Müstəqil Azərbaycanda təhsil islahatları 1999-cu ildən başlansa da, bu prosesin zəruriliyi hələ xeyli əvvəl ulu öndərimizin nitq və çıxışlarında dəfələrlə vurğulanmışdır. 1994-cü il avqustun 31-də Bakı şəhərinin təhsil işçiləri ilə görüşdəki yekun nitqində ümummilli liderimiz "İndiyə qədər yaranmış təhsil, bilik, elm potensialından, həm də bütün ölkələrlə hazırkı əlaqələrdən istifadə edərək inkişaf etmiş ölkələrin təcrübəsini təhsil sahəsində tətbiq etmək mümkündür", – deməklə diqqəti bir tərəfdən islahatyönümlü işlərin hansı bünövrə, təməl üzərində qurulmasına yönəldir, digər tərəfdən isə Azərbaycanda həmin tədbirlərin uğurla həyata keçiriləcəyinə inamını ifadə edirdi.

İslahatların dövrün tələbinə görə planlaşdırılması və aparılması sahəsində böyük təcrübəyə malik ulu öndərimiz həmin nitqində "İndi bizim təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir. Bu yolda keçiriləcək islahatlar gərək müstəqil Azərbaycanın milli mənafelərinin inkişafına yönəlsin" müddəasını irəli sürməklə təhsil islahatlarının başlıca istiqamətini çox aydın şəkildə göstərmiş, "Biz təhsil

sahəsində bütün yeniliklərin tərəfdarıyıq, dünya təcrübəsindən səmərəli istifadə etməyi tələb edirik. Ancaq bu işlər gərək sistemli olsun. Bu işləri görərkən, qurarkən siz onların yaxın və uzaq zamanda nəticələrini mütləq nəzərə almalısınız" fikri ilə əslində islahatyönümlü tədbirlərin konseptual əsasını müəyyənləşdirmişdir. Ümummilli liderimizin 26 noyabr 1994-cü ildə BDU-nun 75 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdəki nitqində söylədiyi "İslahatlar, xüsusən təhsil, elm sahəsində islahatlar çox ağıllı, düşünülmüş şəkildə həyata keçirilməlidir. İslahat naminə, dəb naminə aparılmamalıdır. Adını dəyişdirməklə, bir qədər formasını dəyişdirməklə ki, yeni bir qiyafəyə girsin, dəbə düşsün - bunun naminə yox, yalnız və yalnız əldə etdiyiniz səviyyədən daha yuxarı qalxmaq üçün, təhsilin səmərəliliyini, elmin səmərəliliyini artırmaq üçün aparılmalıdır. Bütün bu islahatlar ancaq bu yolla, bu istiqamətdə getməlidir, bu məqsədi daşımalıdır və biz bu məqsədə nail olmalıyıq" müddəasında isə nəzərdə tutulan islahatların mahiyyəti və məqsədləri lakonik surətdə son dərəcə dəqiq ifadə edilmişdir.

Birmənalı şəkildə demək lazımdır ki, 1999-cu il iyunun 15-də ulu öndərimizin sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı"nın əsasını məhz böyük rəhbərin təhsilimizin gələcək inkişafı ilə bağlı ideyaları, konseptual, proqram xarakterli fikirləri, müddəa və mülahizələri təşkil etmişdir. İslahat Proqramının iyunun 15-də – Qurtuluş günündə təsdiq olunması da rəmzi məna daşıyır. Dahi Heydər Əliyevin 1993-cü ilin həmin tarixi günündə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə ölkəmiz siyasi, iqtisadi böhrandan, vətəndaş müharibəsi təhlükəsindən xilas olmaqla inkişaf yoluna, tərəqqi dövrünə qədəm qoydu, İslahat Proqramının bu əlamətdar gündə təsdiq edilməsi isə təhsil sistemimizdə yeni mərhələnin başlanğıcı oldu.

Müstəqil Azərbaycanın təhsil sistemində, xüsusilə də ümumi təhsil sistemində islahatların qaçılmaz olduğunu diqqətə çatdıran ulu öndərimiz, eyni zamanda təhsil işçilərini islahat prosesinə həssas və ehtiyatla yanaşmağa çağırırdı. Onun "Təhsil sahəsi cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətli yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır", "Əgər iqtisadiyyat sahəsində islahatları keçirmək bir il, iki il yox, bir neçə il və ondan da çox vaxt tələb edirsə, təhsil sahəsində islahatlar bundan daha çox vaxt tələb edir. Ona görə də deyirəm ki, burada inqilabi dəyişikliklər ola bilməz" (Təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının iclasındakı yekun nitqindən, 17 mart 1999-cu il) müddəaları bu gün də islahatlarla məşğul olan mütəxəssislərin fəaliyyətinə istiqamət verən dəyərli ideyalardır. Onu da qeyd etməyi lazım bilirəm ki, islahatlar prosesinə başlarkən ümummilli liderimizin həmin nitqində irəli sürdüyü "Dünya təcrübəsindən Azərbaycanın milli xüsusiyyətlərinə uyğun olan prinsiplər, qaydalar təhsil sistemimizə tətbiq edilməlidir. Biz dünyanın bütün ölkələrində – Qərbdə də, Şərqdə də əldə olunmuş nailiyyətləri dərindən öyrənməli və onlardan Azərbaycan üçün müsbət xarakter daşıyan cəhətləri ölkəmizin təhsil sistemində tətbiq etməliyik" fikrini əsas tutaraq xarici və yerli mütəxəssislərin iştirakı ilə xeyli tədqiqatlar və müqayisəli təhlillər aparılmış, bir çox inkişaf etmiş ölkələrin təcrübəsi öyrənilərək yeri gəldikcə onlara istinad edilmişdir.

Ulu öndərin təhsillə bağlı nitq və çıxışlarına diqqət yetirdikdə daha bir maraqlı cəhət özünü büruzə verir: Müdrik və uzaqgörən dövlət rəhbəri məqsədli şəkildə müəyyən konseptual fikri, yaxud fikirləri yalnız bir dəfə deməklə kifayətlənmir, ayrı-ayrı auditoriyalarda bu fikirlər müxtəlif nitq çalarlarında səslənməklə yaddaşlara hakim kəsilir… Həm də islahatlar barədə danışarkən aydın hiss olunur ki, ulu öndər bu islahatların davamlılığında israrlıdır, çünki eyni tələbləri həm indiki, həm də gələcək nəsillərə ünvanlayır. Onun respublikanın təhsil işçiləri və ali məktəblərə daxil olmuş tələbələrlə 1999-cu ilin 31 avqustunda keçirilmiş görüşdəki nitqində irəli sürdüyü "Mənim sizə tövsiyəm ondan ibarətdir ki, islahatları düşünülmüş qaydada aparasınız, formalizmə, konyukturaya yol verməyəsiniz. Azərbaycanın milli ənənələrinin üzərindən keçməyəsiniz", "Çalışmaq lazımdır ki, islahat islahat naminə aparılmasın, təhsil sistemimizi daha da təkmilləşdirmək, bu günün, gələcəyin tələblərinə daha da uyğunlaşdırmaq məqsədi daşısın", "Əgər biz iqtisadi sahədə apardığımız islahatlarda bu gün haradasa səhv ediriksə, sabah həmin səhvi düzəltmək mümkündür, haradasa ifrata yol veririksə, onun qarşısını almaq mümkündür… Amma təhsil sahəsi çox həssas sahədir. Burada cürbəcür kombinasiyalara, manipulyasiyalara yer verilə bilməz", 2000-ci il sentyabrın 1-də Bilik Günü münasibətilə Bakının Nərimanov rayonundakı 82 nömrəli məktəbdə keçirilən təntənəli toplantıdakı nitqində söylədiyi "Müstəqil Azərbaycanda son illər təhsil sahəsində geniş islahatlar aparılır. Bu islahatlar Azərbaycanın təhsil sistemini, o cümlədən təhsilin səviyyəsini daha da təkmilləşdirir, dünya standartlarına uyğunlaşdırır", 2001-ci il sentyabrın 1-də Bakıda ilk özəl ümumtəhsil məktəb kompleksinin açılışı mərasimindəki nitqində vurğuladığı "Son illər Azərbaycan müstəqil dövlət kimi yeni iqtisadi-siyasi sistem yolu ilə gedərək dünyanın bütün ölkələrinin, xüsusən Qərb ölkələrinin təcrübəsindən öyrənməyə çalışır və təhsilin də təkmilləşdirilməsində bu təcrübədən istifadə etmək lazımdır" müddəaları dediklərimizə real əyani sübutdur.

Daha bir maraqlı məqam… Məlumdur ki, Azərbaycan bu gün haqqında daha çox danışılan və müzakirələr obyektinə çevrilən Boloniya Bəyannaməsinə rəsmi olaraq 2005-ci ilin mayında qoşulmuşdur. Lakin çox əlamətdardır ki, ulu öndərimiz bu Bəyannamədə təsbit olunmuş əsas məqsədlərin mahiyyətini hələ 6 il əvvəl – 1999-cu ilin martında keçirilmiş təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının iclasındakı yekun nitqində "Azərbaycanın təhsil sistemində təhsil alan insanların və xüsusən ali məktəbləri bitirənlərin bilik səviyyəsi və onların biliklərini təsdiq edən sənədlər gərək dünyanın inkişaf etmiş ölkələrinin ali məktəblərinin bilik səviyyəsinə uyğunlaşdırılsın. Onların prinsiplərinə uyğunlaşdırılsın ki, Azərbaycanda təhsil almış və mühəndis diplomu almış bir insan başqa ölkələrdə də həmin diplomla qəbul edilə və fəaliyyət göstərə bilsin", – deməklə uzaqgörənliklə dəqiq açıqlamış və bununla da ölkəmizin ali təhsil sistemi qarşısında dayanan ən zəruri vəzifəni müəyyənləşdirmişdir.

***

Sevindirici haldır ki, müasir Azərbaycan dövlətinin banisi, ölkəmizi dünyanın ən inkişaf etmiş, sivil dövlətləri səviyyəsinə çatdırmağı həyatının əsas amalı, qayəsi sayan, özünün böyük dühası, zəngin idarəçilik təcrübəsi, dönməz iradəsi ilə bu məqsədin əldə edilməsinə çalışan ümummilli liderimiz Heydər Əliyevin ideyaları, təməlini qoyduğu nəhəng quruculuq işləri böyük öndərin layiqli varisi, yeni təfəkkürlü siyasətçi, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən böyük qətiyyət və uğurla davam etdirilir.

Ölkə başçısının genişmiqyaslı islahatçı fəaliyyəti, müstəsna təşkilatçılığı, uğurlu, balanslaşdırılmış xarici və daxili siyasəti nəticəsində son illər Azərbaycan iqtisadi inkişaf tempinə görə dünyada lider ölkəyə çevrilmişdir. Ölkəmizin beynəlxalq aləmdə yeri və mövqeyi getdikcə daha da möhkəmlənir, nüfuzu artır, iqtisadiyyatımız böyük sürətlə inkişaf edir, xalqımızın rifah halı durmadan yüksəlir. Son 6-7 il ərzində Azərbaycanın büdcəsi bir neçə dəfə artmış, iqtisadiyyatın əsas göstəricisi olan ümumi daxili məhsulun artım sürətinə görə ölkəmiz dünyada ən yüksək mövqeyə qalxmışdır.

Son illər iqtisadiyyatımızda baş verən sıçrayış, yüksək templi inkişaf digər sahələrin, o cümlədən təhsilimizin də yüksələn xətt üzrə inkişafı üçün mühüm təməl olmuşdur. Əlbəttə, bu inkişafın əsasında dövlətimizin təhsilə qayğısı durur. Təhsili Azərbaycanın davamlı inkişafının əsas amillərindən biri sayan Azərbaycan Respublikasının Prezidenti, möhtərəm cənab İlham Əliyev prezident seçildiyi gündən təhsili özünün daxili siyasətində prioritet istiqamət kimi götürmüş və onun inkişafına daim qayğı göstərməkdədir. Cənab Prezident çox haqlı olaraq qeyd edir ki, "yüksək təhsil səviyyəsi olmasa, peşəkarlıq olmasa, gənclər ən mütərəqqi texnologiyalara yiyələnməsələr, həqiqətən inkişaf etmiş dövlət qurmaq mümkün deyildir". Məhz buna görə də təhsilin, elmin cəmiyyətdəki önəmli rolunun yüksək qiymətləndirilməsi və onlara göstərilən ardıcıl diqqət və qayğı sayəsində Azərbaycan təhsili son illər özünün yeni inkişaf dövrünə qədəm qoymuşdur. Bu dövrün əsas xüsusiyyəti ondan ibarətdir ki, təhsilin ayrı-ayrı sahələri deyil, o, bütövlükdə kompleks şəkildə inkişaf etdirilir. Təkcə onu göstərmək kifayətdir ki, son 7 il ərzində təhsil tariximizdə ilk dəfə olaraq 16 inkişafyönümlü Dövlət Proqramı təsdiq olunub və uğurla həyata keçirilməkdədir. Təhsilin ayrı-ayrı sahələrinin inkişafı üzrə real vəziyyətin təhlili əsasında hazırlanıb təsdiq edilmiş bu proqramların reallaşdırılması nəticəsində tədris müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi, infrastrukturun müasir tələblərə uyğun qurulması, təhsilin məzmununun yeniləşdirilməsi, yeni dərslik siyasətinin reallaşdırılması, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni model və mexanizmlərin tətbiqi, əmək bazarının tələbatına uyğun kadr hazırlığı və təminatının yaxşılaşdırılması, təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilməsi və təhsil sisteminin informasiyalaşdırılması, məktəbəqədər, texniki peşə, ali təhsil, xaricdə təhsil, istedadlı uşaqların inkişafı, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili, de-institutlaşdırma və digər istiqamətlərdə əhəmiyyətli nailiyyətlər əldə olunub.

Ayrı-ayrı təhsil pillələri və səviyyələrində də ciddi inkişaf meyilləri özünü büruzə verməkdədir. Məktəbəqədər təhsilin uşaqların intellektual, fiziki və psixoloji inkişafında, onların şəxsiyyətinin formalaşmasında və məktəbə hazırlanmasında xüsusi əhəmiyyətə malik olması tədricən cəmiyyət tərəfindən qəbul edilməyə başlanıb. Respublikamızda 20 il ərzində heç bir məktəbəqədər təhsil müəssisəsi tikilmədiyi halda, 2008-2010-cu illərdə ilk dəfə olaraq ölkə üzrə 40 yeni uşaq bağçası tikilib istifadəyə verilib, 44 məktəbəqədər təhsil müəssisəsi əsaslı təmir edilib, müasir avadanlıqlarla təchiz olunub. Həyata keçirilən tədbirlər nəticəsində Bakı şəhərində bağçalara cəlb olunmuş uşaqların sayı 8,6 min nəfər artıb, təhsilin bu pilləsi üzrə əhatə səviyyəsi 26 faizi ötüb. Müstəqillik tariximizdə ilk dəfə olaraq uşaq bağçaları üçün müasir tələblər səviyyəsində 151 adda təlim vəsaitləri hazırlanıb müəssisələrə çatdırılıb.

Azərbaycanda 2000-dən çox yeni məktəb binasının tikilməsi, əsaslı təmiri və müasir avadanlıqlarla, o cümlədən kimya və fizika laboratoriyaları ilə təmin edilməsi təhsil tariximizdə ən əlamətdar hadisələrdəndir.

Yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblər üçün əlavə korpusların inşası, onların əsaslı təmiri, müasir avadanlıqlarla, laboratoriyalarla təminatı, istilik sisteminin bərpası nəticəsində ümumilikdə ölkə

üzrə 1 milyondan çox şagirdin, yəni bütün şagirdlərin 80 faizinin təlim şəraiti yaxşılaşdırılıb. Məktəb tikintisi sahəsində həyata keçirilən proqramlar nəticəsində ikinövbəli məktəblər 73 faizdən 44-ə, ikinci növbədə təhsil alan şagirdlər 34,5 faizdən 21-ə enib.

Dövlətimizin başçısı ölkədə, cəmiyyət həyatının əsas inkişaf yolunun ali təhsildən, elmdən, yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsindən asılı olduğunu və onların inkişafına xüsusi önəm verilməsinin vacibliyini çıxışlarının birində çox sərrast olaraq belə ifadə etmişdir: "Neft, qaz Tanrıdan verilən böyük nemətdir, biz bundan uğurla və məharətlə istifadə edirik. Amma gec-tez bu təbii sərvətlər tükənəcək və bilik, zəka, səviyyə isə ölkəmizin dayanıqlı inkişafını uzun illər bundan sonra təmin edəcəkdir. Ən inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, o ölkənin inkişafında aparıcı rol oynayan neft, qaz deyil, bilikdir, elmi-texniki tərəqqidir, yeni texnologiyalardır". Bununla da dövlət başçısı neft gəlirlərinin insan kapitalına çevrilməsinin aydın formulunu vermişdir.

Neft gəlirlərinin insan kapitalının inkişafına yönəldilməsi baxımından "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində həyata keçirilən tədbirlər xüsusilə diqqəti cəlb edir. 2007-2010-cu illərdə 700-dən artıq istedadlı azərbaycanlı gənc dünyanın müxtəlif ölkələrinin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilib. Onlar Azərbaycan üçün zəruri olan tibb, təbabət elmləri – genetika, mikrobiologiya, mühəndislik, kompüter elmləri kimi ixtisaslar üzrə təhsil alırlar.

Dünyanın aparıcı universitetlərində müxtəlif mənbələr hesabına 10000-dən çox azərbaycanlı gənc təhsil alır. Azərbaycanın ali təhsil müəssisələrində təhsil alan əcnəbilərin sayı isə 7000-i ötüb.

Məktəblərin infrastrukturunun yeniləşdirilməsi sahəsində Heydər Əliyev Fondunun müstəsna xidmətlərini xüsusilə qeyd etməliyik. Fondun təşəbbüsü ilə 2005-2010-cu illərdə 300-dən çox yeni məktəb, uşaq bağçası, uşaq evi, internat məktəbi binası tikilib istifadəyə verilib, əsaslı təmir və bərpa olunub, müasir avadanlıqlarla təchiz edilib. "Bugünkü gənclərin təhsilinə ölkədə çox böyük imkanlar açılır və bizim məqsədimiz ölkəmizdə dünyada ən yüksək standartlara cavab verən təhsili təmin etməkdir" – deyən Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva təhsilimizə qayğını Fondun fəaliyyətinin ən prioritet istiqamətinə çevirmişdir. Onun rəhbərliyi altında Fondun həyata keçirdiyi "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi, "Uşaq evləri və internat məktəblərinin inkişaf proqramı", "Təhsilə dəstək" layihəsi təhsil sahəsində mövcud problemlərin həllində, ölkə miqyasında müasir standartlara cavab verən təhsil komplekslərinin yaradılmasında, xüsusi qayğıya ehtiyacı olan uşaqlara kömək göstərilməsində, onların cəmiyyətə layiqli vətəndaş kimi yetişmələrində, beynəlxalq əməkdaşlıq çərçivəsində humanizm prinsiplərinə uyğun ayrı-ayrı ölkələrdə təhsilin inkişafına dəstək verilməsində çox böyük rol oynayır. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev məhz bu baxımdan bu yaxınlarda keçirilən Fondun 5 illik yubileyi mərasimindəki çıxışında Heydər Əliyev Fondunun cəmiyyətdəki rolunu yüksək qiymətləndirərək demişdir: "Son beş il ərzində Heydər Əliyev Fondu, sözün əsl mənasında, ümumxalq Fondu olmuşdur. Bu Fondun xətti ilə aparılan işlər, görülən tədbirlər, irəli sürülmüş təşəbbüslər göz qabağındadır. İstər təhsil, istər səhiyyə sahəsində, mədəniyyət sahəsində, mənəvi irsin qorunması işində, Azərbaycanın dünya birliyində təbliğ edilməsi işində, Azərbaycanın olduğu kimi təqdimatı işində, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin geniş mənada dünya birliyinə düzgün şəkildə çatdırılması işində Heydər Əliyev Fondunun rolunu çox yüksək qiymətləndirirəm. Bu Fond sübut etdi ki, əgər istək olarsa, əgər iradə olarsa və əgər xoş niyyət olarsa, istənilən sahədə istənilən məsələ həll oluna bilər. Bu Fondun çoxşaxəli fəaliyyətini əgər bir sözlə xarakterizə etmək mümkündürsə, mən: "Xoş niyyət" – deyərdim. Çünki bütün sahələrdə biz bunu görürük".

Şübhəsiz, bir məqalə çərçivəsində dahi şəxsiyyət Heydər Əliyevin təhsillə bağlı proqram müddəalarının mahiyyətini, bunlarda ifadə olunmuş konseptual ideyaların məna tutumu baxımından miqyasını açıqlamaq və təhlil edib müvafiq nəticələr çıxarmaq, onun ölməz ideyalarının və əməllərinin müasir şəraitdə ölkəmizdə necə vüsətlə həyata keçirildiyini açıb göstərmək qeyri-mümkündür. Heydər Əliyevin bizlərə və gələcək nəsillərə ərməğan etdiyi zəngin irsi qiymətli bir xəzinədir. İllər ötəcək, nəsillər bir-birini əvəz edəcək, lakin Azərbaycan xalqının iftixarı olan Heydər Əliyevin işıqlı təfəkküründən süzülüb gəlmiş nadir fikir inciləri uğurlu gələcəyə gedən yollarımızda əbədi məşəl kimi daim şölələnəcəkdir.

**"Azərbaycan müəllimi".-**2010.-10 dekabr.-N.48.-S.2-3.

# MÜASİR AZƏRBAYCAN ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN YOLU İLƏ İRƏLİLƏYİR

**Vüqar Rəhimzadə,**
"İki sahil" qəzetinin baş redaktoru, Əməkdar jurnalist,
YAP Siyasi Şurasının üzvü

Hər bir xalq görkəmli şəxsiyyətləri ilə tanınır. Azərbaycan da bəşəriyyətə verdiyi tarixi şəxsiyyətləri ilə daim öyünüb, fəxr edib. Təbii ki, təkcə Azərbaycanda deyil eyni zamanda, ölkəmizdən çox-çox uzaqlarda şöhrət tapmış dövlət xadimləri, siyasətçilər, uzaqgörənliyi ilə tanınan müdrik şəxsiyyətlər haqqında söz düşəndə, ilk növbədə, Ümummilli lider Heydər Əliyevin adı çəkilir. "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır" söyləyən Ulu öndər Heydər Əliyev istər keçmiş sovetlər dönəmində, istərsə də 1993-cü ildən sonra ölkənin iqtisadi, sosial inkişafı istiqamətində mühüm addımlar atmış, Azərbaycanın ən yüksək zirvələri fəth etməsinə böyük zəmin yaratmışdır. Onun arzusu, amalı Azərbaycanı hərtərəfli inkişaf etmiş müstəqil, dünya birliyində tanınan bütöv bir dövlət kimi görmək idi. Uzun illər Azərbaycana rəhbərlik etməsinin özü Heydər Əliyev şəxsiyyətində formalaşan, müstəqilliyə və xalqına sədaqət, millilik və Vətənə məhəbbət hissindən qaynaqlanan inamın təzahürüdür.

Ulu öndər Heydər Əliyev 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrlərdə ölkəmizi geridə qalmış respublikadan çiçəklənən, inkişaf edən bir diyara çevirmişdir. Ən böyük sənaye obyektlərinin tikilib istifadəyə verilməsi, sosial infrastrukturun formalaşması, yüksək səviyyədə elmi tədqiqatların aparılması, kadr hazırlığı, gənclərin dünyanın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi və digər istiqamətlərdə əldə olunan uğurlar Ümummilli lider Heydər Əliyevin əzmkar fəaliyyətinin nəticəsidir. Ulu öndər Sovetlər birliyi dövründə Azərbaycanı qabaqcıl respublikalar sırasına çıxardığı kimi 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışı ilə dövlətçilik tarixinin yeni mərhələsinin, müstəqilliyi əbədiləşdirən uğurlu bir yolun başlanğıcını qoydu.

Bir məqamı da xüsusi qeyd etmək istərdim ki, Ulu öndər Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin Sədri işləyərkən Onun Muxtar Respublikada həyata keçirdiyi islahatlar sonradan daha böyük miqyasda, bütün Azərbaycanda tətbiq olundu. Ulu öndərin Naxçıvanda yaşadığı illərə nəzər saldıqda aydın görürük ki, bu gün haqqında ürəkdolusu danışdığımız və ölkəmizin beynəlxalq aləmdə nüfuzunu artıran yeniliklərin, islahatların təməli məhz o çətin illərdə qoyulub.

Müstəqil, iqtisadi cəhətdən qüdrətli, vahid, dünya birliyinin tanıyıb, hörmət etdiyi Azərbaycan kimi bir dövləti yaratmaq məhz Ulu öndər Heydər Əliyevə nəsib oldu. Onun hakimiyyətə qayıdışı ilə milli ideologiyamızın əks olunduğu dövlətçilik konsepsiyası hazırlandı.

O, 1993-cü ildə ölkəmizin üzərini qara buludların aldığı çətin bir vaxtda, xalqın çağırışına səs verərək düçar olduğumuz bəla və xaosu aradan qaldırmaq üçün heç bir dahi, müdrik dövlət başçısının öhdəsindən gələ bilməyəcəyi bir məsuliyyəti üzərinə götürməklə Azərbaycanın əbədi müstəqilliyini təmin etdi. Müasir Azərbaycanın qurucusu, memarı kimi tanındı, milyonların ehtiramını qazandı.

1993-cü ilin 3 oktyabrında yüksək etimad qazanan və 11 oktyabr 1998-ci ildə qələbəsini təkrarlayan Heydər Əliyev milyonların ürəyindən keçən istəkləri reallaşdırdı.

Prezidentliyinin ilk illərindən etibarən həyata keçirdiyi islahatlar, böhran içərisində olan Azərbaycanın iqtisadiyyatının gücləndirilməsi istiqamətində reallaşdırdığı genişmiqyaslı quruculuq işləri xalqın gələcəyə olan inamını doğrultmaqla ölkəmizin dünya birliyinə açılan yoluna işıq saldı. Artıq Azərbaycanın səsi bir çox beynəlxalq təşkilatların tribunasından eşidilir, diplomatik uğurları diqqət çəkirdi. Dünya siyasətində dəst-xətti ilə seçilən, dövlət başçıları arasında fenomen istedadı və hazırlığı ilə fərqlənən Heydər Əliyev şəxsiyyəti müdriklik simvolu kimi nümunə göstərilirdi. Bu, cəsarət və qətiyyət, liderlərə məxsus dönməzlik və məğrurluq müasir Azərbaycanın qurucusu olan Heydər Əliyevin həyat amalının gerçəkləşməsinin parlaq ifadəsi kimi ölkəmizin imicini, nüfuzunu yüksəltdi.

2005-ci ildə Milli Qurtuluş Günü münasibətilə Yeni Azərbaycan Partiyasının keçirdiyi mitinqdə çıxış edən Prezident İlham Əliyev 1993-cü il iyunun 15-də müstəqil Azərbaycanın tarixinin yeni səhifəsinin açıldığını bildirərək, bugünkü Azərbaycanı həmin dövrün Azərbaycanı ilə müqayisə edərək söyləmişdir: "O vaxt Azərbaycanda xaos hökm sürürdü. Bu gün Azərbaycanda sabitlikdir. O vaxt Azərbaycanda hərc-mərclik var idi. Bu gün Azərbaycanda sülhdür, əmin-amanlıqdır. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdı. Bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biridir. O vaxt Azərbaycan vətəndaş müharibəsi ilə üz-üzə qalmışdı. Bu gün Azərbaycanda milli birlik, milli həmrəylik mövcuddur. O vaxt Azərbaycanda total böhran hökm sürürdü. Bu gün dünyanın aparıcı dairələri etiraf edir ki, Azərbaycan ən qüdrətli ölkəyə çevrilməkdədir.

Bütün bunları edən, bütün bunları yaradan xalqın dəstəyinə arxalanan xalqımızın lideri Heydər Əliyev olmuşdur. Onun zəhmətidir, Onun əməyidir və xalqla birlikdə bu gün biz Azərbaycanı daha da inamla, daha da sürətlə inkişaf etdiririk".

Azərbaycanın gələcək inkişaf yolunun parametrlərini dahiyanə düşüncələri və zəngin dövlətçilik təcrübəsinə əsasən xalqa çatdıran Ümummilli lider əsas vəzifə kimi respublikada dövlət quruculuğuna diqqət yetirdi. "Müstəqil Azərbaycanda hüquqi demokratik dövlət qurulmalıdır, Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir və tarixi ənənələrindən, milli ənənələrdən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir" söyləməklə dünya siviliyaziyasına daxil olmağın yollarını müəyyənləşdirdi, prioritetləri qarşıya qoydu.

Demokratik sivilizasiyalı cəmiyyətdə insan hüquqlarının qorunması, çoxpartiyalı sistemin yaradılması, müxalif qüvvələrlə konstruktiv əməkdaşlıq baxımından qanunlara əsaslanan mövqeyini bəyan edən. Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illərdə insan hüquq və azadlıqlarının müdafiəsi üçün möhkəm təməl formalaşdırılmışdır. 1998-ci ildə Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm cəzası ləğv olundu. Bu gün dünyanın bir çox qabaqcıl ölkələrində belə ölüm cəzasının hələ də ləğv olunmadığını və mütəmadi olaraq tətbiq edildiyini nəzərə alsaq, Ulu öndərin bu addımının böyük hüquqi və tarixi dəyərini dərk etmiş olarıq. Heydər Əliyevin həyata keçirdiyi dövlət siyasətinin mahiyyətini özündə əks etdirən humanistlik nəticəsində 1995-ci ildən əfv və amnistiya təsisatları bərpa edilmiş, həmin dövrdən etibarən imzalanmış sərəncam və fərmanlara əsasən minlərlə vətəndaşımız azadlığa qovuşmuşdur. Ümummilli lider hər kəsin hüquqlarına hörmətlə yanaşılmasını, şəxsiyyətin alçaldılması, zorakılıq, işgəncə, bu kimi qeyri-qanuni üsul və vasitələrə yol verilməsi hallarının aradan qaldırılmasını hüquq-mühafizə orqanları qarşısında vacib vəzifə kimi qoymuşdur. Ulu öndərin rəhbərliyi ilə qəbul olunmuş Milli Konstitusiyada bu məsələ önə çəkilir.

1995-ci ildən imzalanan əfv fərmanları və Amnistiya Aktları da dövlətin insan amilinə yüksək dəyər verdiyini təsdiqləyir. Bu günədək imzalanan 45 əfv fərmanı əsasında on minlərlə məhbus cəza çəkmədən azad edilib. Bu fərmanların 32-si Ümummilli lider Heydər Əliyev, 13-ü Prezident İlham Əliyev tərəfindən imzalanıb. Bu günədək qəbul olunan 8 Amnistiya Aktı 40 mindən artıq məhbusa şamil edilib.

Qəbul olunmuş hər bir Amnistiya Aktını humanizm prinsiplərinin, humanizm ideyalarının qələbəsi kimi dəyərləndirən Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva bildirir: "Əsası dahi Heydər Əliyev tərəfindən 1994-cü ildə qoyulmuş bu siyasət nəticəsində minlərlə insan azadlığa buraxılaraq normal həyata qayıdıb və bu gün də bu ənənələr davam edir. Allah vergisi olan insan ömrü hər bir şeydən uca və dəyərlidir. Hər bir insan ləyaqətlə və azad yaşamağa layiqdir. Eyni zamanda, hər bir insan öz ömrünün, öz taleyinin hökmdarıdır. Səhv etmiş, yolunu azmış insanlara həyatda yeni şans verməklə, onları bağışlayıb cəmiyyətimizə qaytarmaqla biz onlara yenidən həyatın, azadlığın dəyərini dərk etməyə, öz səhvlərini anlayıb doğru yola qayıtmağa kömək edirik. Hər zaman mərhəmətlilik, geniş qəlblilik, xeyirxahlıq, bağışlamaq bacarığı ən ali və insani keyfiyyətlər kimi qiymətləndirilib".

Demokratiyanın vacib amillərindən biri kimi söz, mətbuat azadlığının inkişafı istiqamətində də Ulu öndər Heydər Əliyevin atdığı addımlar daim təqdir olunur. Mətbuatın dünya təcrübəsindən bəhrələnməsi, xüsusilə KİV-lərin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, o cümlədən, jurnalistlərin peşə səviyyəsinin yüksəldilməsi və hüquqlarının qorunması üçün bütün zəruri addımlar atılmış və tədbirlər həyata keçirilmişdir. Ulu öndər Heydər Əliyevin "Bunu dəfələrlə demişəm. Azərbaycanın müstəqilliyi dönməzdir. Azərbaycanda verilmiş bütün bu azadlıqların hamısı dönməzdir. Azərbaycanda mətbuat, fikir azadlığı dönməzdir – burada heç bir şey ola bilməz, heç kəs də bundan narahat olmasın" fikri bu sahəyə diqqət və qayğının bariz nümunəsidir.

Mətbuatımızın inkişaf tarixinə nəzər salsaq qeyd edə bilərik ki, bu tərəqqi daha çox 1998-ci ildə senzuranın ləğvindən sonra nəzərə çarpmağa başladı. Ölkədə xeyli sayda müstəqil mətbu orqanın və informasiya agentliklərinin, müstəqil elektron KİV-lərin, jurnalist qurumlarının və bu sahədə qeyri-hökumət təşkilatlarının azad fəaliyyət göstərməsi demokratik mətbuatın mövcudluğunu təsdiq edən amillərdir. Ümummilli lider Heydər Əliyevin milli mətbuatımız qarşısındakı xidmətləri ictimai-siyasi miqyasına, tarixi əhəmiyyətinə və mahiyyətinə görə olduqca böyükdür. Ölkədə azad və müstəqil mətbuatın inkişafı, jurnalistlərin hüquqlarının qorunması üçün köklü islahatlar aparıldı, qanunlar qəbul edildi.

"Bizim dövlət siyasətimizin əsas məqsədlərindən biri Azərbaycanın mütərəqqi mətbuat ənənələrinin davam etdirilməsi və müasir beynəlxalq təcrübə ilə zənginləşdirilməsi, KİV-lərin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, onların imkanlarından respublikada hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşdırılması və inkişafı, demokratik islahatların həyata keçirilməsində səmərəli istifadə edilməsindən

ibarətdir". Ulu öndər Heydər Əliyev daim azad mətbuatın inkişafına diqqət göstərib və Onun bu sahədə atdığı addımların uğurlu nəticələri göz qabağındadır.

Dahi şəxsiyyət demokratikləşmə prosesinin iqtisadi inkişafda rolunu daim önə çəkirdi. Bu fikir də daim bildirilirdi ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. İqtisadi tərəqqi digər sahələrin inkişafı üçün əsasdır. Müstəqillik əldə etdikdən sonra öz sərvətlərinin tam sahibi olan Azərbaycan xalqının gələcəyini düşünən və ölkənin iqtisadi inkişafı üçün ən səmərəli yollar axtaran Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətinin əsasında neft amilindən istifadə etməklə Azərbaycanın dünya iqtisadi bazarına inteqrasiyası kimi önəmli məsələ dayanırdı. Neft strategiyasını müəyyənləşdirməklə Azərbaycanın tarixində yeni bir mərhələnin başlanğıcı qoyuldu. "1994-cü ildən Azərbaycan özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha səmərəli istifadə etməkdən asılıdır".

Ulu öndərin proqram xarakterli bu sözləri tək neft sənayesinin deyil, iqtisadiyyatın bütün sahələrinin inkişaf yollarını aydın göstərir. Dünyada elə dövlət yoxdur ki, müəyyən qədər təbii sərvətlərə malik olmasın. Azərbaycan isə payına düşən sərvətlərin zənginliyinə, strateji əhəmiyyətinə görə fərqlidir. Bu gerçəkliyi də unutmaq olmaz ki, təbii ehtiyatlardan düzgün istifadə edildikdə, o, zəngin sərvətə çevrilir. Neft strategiyasının əsasını da bu prinsiplər təşkil edir.

Neft strategiyasının əsasını təşkil edən Xəzərin Azərbaycan sektorundakı karbohidrogen ehtiyatlarından səmərəli istifadə, xarici ölkələrin tanınmış neft şirkətləri ilə birgə fəaliyyətə əsaslanan, neft və təbii qaz hasilatının artırılmasını təmin edən yeni yataqların kəşf olunub birgə işlənməsi istiqamətində görülən işlər miqyasına və geosiyasi əhəmiyyətinə görə yeni mərhələlər üzrə davam etdirilirdi. Təbii ehtiyatların xalqa məxsusluğunu sözdə deyil, əməldə göstərilməsinin tərəfdarı olan Ümummilli lider Heydər Əliyev Dövlət Neft Fondunu yaratmaqla əldə olunan gəlirin şəffaf və ədalətli bölünməsini təmin etdi. Bu gün Neft Fondunun aktivlərinin həcmi 20 milyard dollardan artıqdır.

Dövlət siyasətinin əsas prioritetləri kimi böyük əhəmiyyətə malik, Avropa və dünya birliyi dövlətlərinin enerji təhlükəsizliyinin təminatında etibarlı tərəfdaş sayılan Azərbaycanın lider dövlət kimi tanınmasının təməlində də Ulu öndər tərəfindən qoyulan daxili və xarici siyasətin uğurlu həlli dayanır. Bütün xalqlar və dövlətlərlə qarşılıqlı anlaşma və əməkdaşlıq siyasətini yeridən, Azərbaycanın ən tanınmış beynəlxalq təşkilatlarda təmsil olunub, söz sahibi nüfuzu qazanması müdrik bir siyasətin məntiqi nəticəsi kimi bu gün də özünü doğruldur. "Əsrin müqaviləsi"nin, onun ilk bəhrəsi olan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin dünyada doğurduğu əks-səda Azərbaycana marağı artırmaqla respublikamızı Cənubi Qafqazda lider dövlət kimi tanıtdırdı. Bu gün Azərbaycanın iştirakı olmadan regionda hansısa iqtisadi və siyasi layihənin həyata keçirilməsinin qeyri-mümkünlüyü də deyilənlərin təsdiqidir. "Biz təşəbbüsləri gerçəkliyə çeviririk" söyləyən dövlət başçısı İlham Əliyev bu layihələrin ölkələr arasında dostluğun, əməkdaşlığın genişləndirilməsində böyük əhəmiyyətinin olduğunu bildirir. Gerçəkləşən hər bir layihə yeni layihənin gündəmə gətirilməsinə stimul verir. Əhəmiyyətinə görə, enerji layihələrindən heç də geri qalmayan, Avropaya açılan üçüncü qapı kimi dəyərləndirilən Bakı-Tbilisi-Qars dəmir yolunun gerçəkləşməsi istiqamətində addımların atılması da, Azərbaycan dövlətinin siyasi iradəsinin nəticəsidir.

Heç şübhəsiz ki, bütün prioritetlərin əsasında isə qüdrətli respublikanın inkişaf perspektivləri-düşünülmüş, dünya siyasətinə uyğunlaşdırılan balanslaşdırılmış xarici siyasət, ölkə daxilində sabitliyin təminatı, dövlətçiliyin möhkəmlənməsi, bazar iqtisadiyyatı yolunu seçməklə malik olduğumuz təbii ehtiyatlardan xalqın mənafeyi və rifah halının yaxşılaşdırılması naminə səmərəli istifadə, insan hüquq və azadlıqlarının qorunması, çoxmillətli respublika olan Azərbaycanın tolerant dövlət kimi bütün azərbaycanlılar üçün vətən olması, biri-birindən məsuliyyətli vəzifələr dayanır.

Müstəqillik yollarında ilk addımlarını atan hər bir dövlətin qarşısında dayanan həlli vacib məsələləri önə çəkərkən, Ulu öndər Heydər Əliyev milli birliyi, həmrəyliyi xüsusi vurğulayardı. Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün əsası 1991-ci ilin 16 dekabrında Ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. O illərdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri olan Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. 19 ildir ki, Azərbaycanın milli bayramları sırasına bir möhtəşəm tarix də əlavə olunub: 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü.

2001-ci ilin noyabrın 9-10-da Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi ilə soydaşlarımızın həmrəyliyi təmin edildi, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında əsas amil olan diasporun təşkilatlanması üçün hüquqi bazanın əsası qoyuldu, görüləcək işlərin bir mərkəzdən idarə olunması üçün Diasporla iş üzrə Dövlət Komitəsi yaradıldı.

Ən mühüm problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində də mühüm addımlar atıldı. Ulu öndər Heydər Əliyev xarici ölkələrə səfərləri zamanı əsas diqqəti bu münaqişəyə yönəldərək, Ermənistanın işğalçılıq siyasətini dünya bəyan etdi. Azərbaycan ətrafında yaradılan informasiya blokadasının yarılması Ulu öndər Heydər Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən biri idi. Məlumdur ki, müstəqilliyimizin ilk illərində Azərbaycanın bir sıra problemləri yaşamasında ölkəmiz haqqında məlumatsızlıq da mühüm rol oynamışdı. 1992-ci ildə ölkəmizə qarşı tətbiq olunan "Azadlığı müdafiə aktına" ədalətsiz 907-ci düzəliş də bu məlumatsızlığın nəticəsidir. Dünyada cərəyan edən proseslərə təsir imkanlarına malik olan erməni diasporu ölkəmiz barədə mənfi rəy yaratmaqla həmin ədalətsiz qərarın tətbiqinə nail oldu. Bu düzəlişin ölkəmizə maddidən çox, mənəvi ziyanını önə çəkən Ulu öndər Heydər Əliyev dünyanın ən nüfuzlu təşkilatlarının tribunasından Azərbaycan həqiqətlərini, Dağlıq Qarabağ probleminin əsil mahiyyətini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı. Erməni yalanları faktlarla ifşa olundu.

Ulu öndər Heydər Əliyev diplomatik mübarizənin gücləndirilməsi ilə yanaşı, "Bizim məqsədimiz müharibə etmək deyil. Ordumuzun yaranması, formalaşması, möhkəmlənməsi yalnız və yalnız Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etmək üçün lazımdır. Biz düşdüyümüz vəziyyətdən sülh yolu ilə çıxmaq istəyirik" söyləyərək ordu quruculuğu sahəsində mühüm addımlar atdı. 1994-cü ilin mayın 12-də atəşkəsin əldə olunması Azərbaycanın hər bir sahədə inkişafının təmin olunmasında əhəmiyyətli rol oynadı.

Ümummilli lider, eyni zamanda müasir Azərbaycanın siyasi həyatının ən əlamətdar hadisələrindən olan Yeni Azərbaycan Partiyasının yaradıcısıdır. Partiyanın hansı şəraitdə, hansı zərurətdən yarandığı aydındır. Bu, o dövr idi ki, Azərbaycanın o vaxtkı rəhbərliyi, AXC-Müsavat iqtidarı Azərbaycanı uçurum qarşısında qoymuşdu. Ölkədə xaos, anarxiya, özbaşınalıq baş alıb gedirdi. Bir tərəfdən ölkədəki siyasi gərginlik, digər tərəfdən torpaqlarımızın ermənilər tərəfindən işğalı xalqın səbir kasasını doldururdu. Belə bir şəraitdə Yeni Azərbaycan Partiyasının yaradılması tarixi zərurət idi. 91 nəfər Azərbaycan ziyalısının Ulu öndər Heydər Əliyevə "Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir" müraciəti ölkə ictimaiyyəti arasında böyük canlanma yaratdı. Bu, yalnız 91 nəfərin deyil, ölkədə baş alıb gedən özbaşınalıqdan, siyasi gərginlikdən səbr kasası dolmuş bütöv bir xalqın Heydər Əliyevə böyük ümidinin ifadəsi idi.

Yeni Azərbaycan Partiyasının təsis konfransı 1992-ci il noyabrın 21-də Ulu öndər Heydər Əliyevin sədrliyi ilə Naxçıvanda keçirildi. Konfransda Ulu öndər yekdilliklə YAP-ın Sədri seçildi. Təsis konfransda Azərbaycanın əksər rayonlarından cəmiyyətin bütün təbəqələrini təmsil edən 550-dən artıq nümayəndənin iştirak etdiyi partiyanın sıralarında hazırda 520 mindən artıq üzvün birləşməsi məhz Heydər Əliyev ideyalarına sədaqətin, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin gələcəyinə inamın göstəricisidir.

Ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti, xalqı qarşısındakı xidmətləri danılmazdır. Bugünkü müstəqil, demokratik, iqtisadiyyatı sürətlə inkişaf edən Azərbaycan Onun şah əsəridir.

Bu gün Azərbaycan Heydər Əliyev yolu ilə irəliləyir və inkişaf edir. Fəaliyyətə başladığı ilk gündən xalqı qarşısında görəcəyi işlərin prioritetlərini açıqlayan, "Azərbaycanı daha qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacaq, heç vaxt bu yoldan dönməyəcəyəm" söyləyən cənab Prezident İlham Əliyev "Azərbaycan gələcəkdə çox zəngin və qüdrətli ölkəyə çevriləcəkdir" vədini doğrultdu.

Ölkəmizin dinamik və sabit inkişafı üçün müstəsna əhəmiyyəti olan neft siyasətinin incəliklərinə dərindən bələd olan Prezident İlham Əliyevin əsası Ulu öndər tərəfindən qoyulan neft strategiyasını uğurla davam etdirməsi sayəsində Azərbaycan mühüm uğurlara imza atır. Vaxtilə neft ölkəsi kimi tanınan Azərbaycan bu gün həm də qaz ixracatçısıdır. Dünyanın enerji təhlükəsizliyinin təminatında ölkəmizin artan rolu ən yüksək səviyyələrdə qeyd edilir.

Prezident İlham Əliyev dəfələrlə bildirmişdir ki, hər birimizin gələcək fəaliyyəti bütün sahələri əhatə edən uğurlu nəticələrdən asılıdır. Bu məqsədlə, xüsusi proqramların hazırlanması dövlət siyasətinin başlıca vəzifəsi kimi qarşıya qoyulur.

Atdığı addımlarda Heydər Əliyev siyasi kursunun, Ulu öndərin zəngin dövlətçilik məktəbinin layiqli davamçısı olduğunu təsdiqləyən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında qarşıya qoyulan vəzifələrin uğurlu həlli ilə Azərbaycan ən ucqar kəndləri də daxil olmaqla böyük quruculuq meydanını xatırladır. Artıq keçid dövrünü başa vuraraq dünya standartlarına və bazar iqtisadiyyatının müasir tələblərinə uyğun layihə və islahatların tətbiqinin davam etdirilməsini vacib hesab edən Prezident İlham Əliyev başlıca amil kimi neft strategiyasının daha geniş miqyasda həyata keçirilməsi, dünya siyasətinə uyğunlaşdırılması, demokratiyanın tam qələbəsi naminə inamlı addımlar atır. Qazanılan hər uğur isə Ümummilli lider Heydər Əliyevin "Azərbaycan dünyaya günəş kimi doğacaq" sözlərinin əməli nəticəsi kimi diqqət çəkir.

Bir sözlə, beynəlxalq təşkilatların hesabatlarında Azərbaycanın demokratiyasının nümunə göstərilməsi, dinamik iqtisadi inkişafa malik qüdrətli ölkə kimi tanınması, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin alternativsizliyinin dünyanın tanınmış siyasətçiləri, politoloqları, nüfuzlu araşdırmalar mərkəzləri tərəfindən xüsusi qeyd edilərək, ən yüksək mükafatlara layiq görülməsi də bu fikrin təsdiqi, Heydər Əliyev ideyalarının təntənəsi və qələbəsidir.

**"Yeni Azərbaycan".-**2010.-10 dekabr.-N.230.-S.4.

# ELMİ ƏSASLARA SÖYKƏNƏN DAVAMLI İNKİŞAF STRATEGİYASININ MÜƏLLİFİ

**Abel MƏHƏRRƏMOV,**
Bakı Dövlət Universitetinin rektoru, akademik,
Milli Məclisin deputatı

**Azərbaycanın özü qədər əbədi**

Tarixən dövlətlərin gücü və qüdrəti, ilk növbədə, onların inkişaf səviyyəsi ilə müəyyənləşmişdir. Dinamik inkişaf yolunda olan dövlətlər məqsədlərinə doğru inamla irəliləmiş, dünya miqyasında söz sahibinə çevrilmişlər. İnkişaf prosesi özü isə sistemli və səmərəli fəaliyyətin nəticəsi kimi dəyərləndirilmişdir. Hakimiyyətdə olan hər bir siyasi qüvvə xalqın dəstəyini qazanmaq, ictimai etimadı doğrultmaq üçün ilk növbədə, dövlətin hərtərəfli inkişaf və tərəqqisinə, cəmiyyətin rifahına çalışmışdır.

Davamlı inkişaf, tərəqqi və yüksəliş prosesi bu gün müstəqil Azərbaycanın da siyasi simasını müəyyən edir. Sürətli intibah yolunda olan, qarşıya qoyduğu hədəflərə inamla yetişən, bütün sahələrdə yeniləşən respublikamız beynəlxalq aləmdə mövqelərini ildən-ilə möhkəmləndirir. Azərbaycan nəinki problemlərinin həllinə nail olur, hətta ümumregion əhəmiyyətli qlobal layihələri daxili imkanları hesabına gerçəkləşdirir. Aparıcı dünya dövlətləri Cənubi Qafqazın tərəqqi və yüksəlişini Azərbaycandan kənarda görmür, respublikamızın mövqeyi ilə tam hesablaşırlar. Ölkəmiz düşünülmüş yeni neft strategiyası ilə ümumən Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan strateji əhəmiyyətli dövlətə çevrilir. Müstəqil daxili və xarici siyasət yeridən ölkə rəhbərliyi milli maraqları layiqincə müdafiə edir.

Bu gün Azərbaycanın bölgələri böyük tikinti meydanını xatırladır. Regionlarda yüksək zövqlə aparılan abadlıq-quruculuq işləri zahiri görüntüyə hesablanan, kampaniya xarakteri daşıyan tədbirlərdən kəmiyyət və keyfiyyətcə fərqlənir. Rayonlara, hətta kəndlərə şəhər simasının gətirilməsi əyalət insanlarının ümumi mənəvi-psixoloji ovqatını, gələcəyə inam hissini yüksəldir. Yeni inşa edilən sosial infrastruktur obyektləri – elm, təhsil, səhiyyə, mədəniyyət müəssisələri yerlərdə mədəni-intellektual səviyyəni yüksəldir, mənəvi iqlimi saflaşdırır. Mövcud uğurlar insanlarda gələcək barədə yalnız nikbin təəssürat və daxili əminlik doğurur. Ölkə vətəndaşları yaxşı başa düşürlər ki, çətin və ağrılı günlərimiz çoxdan geridə qalmışdır. Üfüqdə sürətlə yeniləşən, iqtisadi uğurları, demokratik inkişaf səviyyəsi ilə dünya arenasında layiqli mövqeyini təmin edən qüdrətli və əzəmətli Azərbaycan görünür!

Bütün sadaladığımız uğur və nailiyyətlərin əsasında bir vacib amil dayanır – lider amili! Tarixi gerçəkliklər sübut edir ki, siyasi liderin şəxsiyyətindən və idarəetmə qabiliyyətindən çox şey – ilk növbədə, onun rəhbərlik etdiyi dövlətin, xalqın taleyi asılıdır. Bu qənaətlə hamı bölüşür ki, müstəqil respublikamız da hazırkı möhtəşəm nailiyyətlərinə görə məhz ümummilli lider Heydər Əliyevə borcludur. Azərbaycanı canı qədər sevən, ürəyi daim xalqının səadəti, xoşbəxtliyi uğrunda döyünən, ölkəsini azad, müstəqil və inkişafda görmək istəyən, Vətəninin, xalqının yolunda həyatını qurban verməyə belə hazır olan Heydər Əliyev dühasının mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq canlı və unudulmaz tarixdir. Ümummilli liderin əbədiyyətə qovuşmasından ötən 7 illik zaman kəsiyi bizə bu tarixin əzəmətini, möhtəşəmliyini tam mahiyyəti ilə anlamaq, Heydər Əliyev fenomeninin milli dövlətçilik qarşısındakı əvəzsiz xidmətlərini mahiyyəti üzrə dərk etmək imkanı verir.

Ümummilli lider Heydər Əliyev minilliklər boyu davam edən dövlətçilik tariximizin yalnız 40 ilinə sahiblik edir. Fəqət, bu zaman kəsiyində xalqın minilliklərlə intizarında olduğu arzular, niyyətlər, məramlar gerçəyə çevrilmiş, milli dövlətçilik ənənələrinin formalaşması prosesi sürətlənmişdir. Bu zaman kəsiyi Azərbaycanda müstəqilliyin əbədi, daimi və dönməz xarakter alması, sabit dövlət quruluşunun yaranması, xalqın təbii və konstitusion haqlarına sahib çıxması, milli-mənəvi yüksəlişə nail olması, fərdin özünü azad ölkənin vətəndaşı kimi dərk etməsi kimi misilsiz tarixi prosesi əhatələyir.

Ulu öndərin hələ ötən əsrin 70-80-ci illərindən böyük uzaqgörənliklə formalaşdırdığı sənaye və istehsal potensialı bugünün özündə də davamlı iqtisadi yüksəliş üçün möhkəm özülə, bünövrəyə çevrilmişdir. Orta və nisbətən yaşlı nəslin nümayəndələri respublikanı böyük uğurlara aparan müstəqillik yolunun məhz ötən əsrin 60-cı illərindən başlandığını çox yaxşı bilirlər. O dövrdə keçmiş SSRİ-nin ən geridə qalmış respublikalarından biri kimi tanınan, iqtisadi, mənəvi-ideoloji böhran keçirən Azərbaycan sanki taleyin ümidinə buraxılmış kimi görünürdü. Bu nihilizm və tənəzzül şəraitində müstəqil həyata yeni qədəm qoyan biz gənclərin gələcək barədə təsəvvürləri də "bədbin notlar" üzərində köklənmişdi. Açıq deməliyik, imtiyazlı partiya nomenklaturasının yaratdığı sərt maneələr şəraitində hansısa imkansız azərbaycanlı gəncinin yalnız öz biliyi sayəsində ali məktəbə

daxil olması, cəmiyyətdə layiqli yerini tutması nəinki çətin, hətta əlçatmaz görünürdü. Həmin dövrdə ən nüfuzlu institutların qapıları zəhmətkeş ailələrin övladlarının üzünə bağlanmışdı.

Ulu öndər Heydər Əliyevin respublikanın ağır iqtisadi, siyasi, mənəvi böhran keçirdiyi belə bir dövrdə – 1969-cu ilin iyulunda Azərbaycan KP MK-nın birinci katibi seçilməsi isə respublikanı işıqlı gələcəyə doğru aparan yolun başlanğıcına çevrildi. İyulun 14-də keçirilən plenumda geniş nitq söyləyən yeni rəhbər elə ilk gündən köhnə stereotipləri dağıdaraq milli ideallara bağlı lider olduğunu ən yüksək kürsüdən nümayiş etdirdi. Heydər Əliyevin ədalətə, qanunçuluğa tapınaraq respublikada əliəyriliyə, rüşvətxorluğa, dövlət əmlakının mənimsənilməsi hallarına qarşı kəskin mübarizəyə qalxması, paralel olaraq yüksək yenilikçiliyi, təşəbbüskarlığı, islahatlara meyilliyi respublika ictimaiyyətində nikbinliyi, sabaha inamı artırdı.

Böyük strateq onu da yaxşı bilirdi ki, xalqın siyasi müstəqilliyinin təməlini məhz onun iqtisadi azadlığı şərtləndirir. Bu baxımdan Heydər Əliyev qısa müddətdə ölkədə mədəni və mənəvi intibahı təmin etməklə bu mütərəqqi prosesi iqtisadiyyatdakı uğurlarla üzvi surətdə əlaqələndirirdi, paralel şəkildə həyata keçirirdi. Təsadüfi deyil ki, 1969-1982-ci illərdə həyatın bütün sahələrində baş vermiş köklü dəyişikliklər miqyasına görə Azərbaycanın şanlı quruculuq salnaməsinin ən dolğun, şərəfli səhifələrini təşkil edir. Müstəqil Azərbaycanın keçid dövrünü başa vuraraq dünya iqtisadiyyatına sürətlə inteqrasiya edən qüdrətli dövlətə çevrilməsinin hazırkı möhkəm təməli də məhz Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə formalaşdırdığı möhkəm iqtisadi təmələ söykənir.

Ümummilli lider Heydər Əliyev respublikaya birinci rəhbərliyi dövründə həyat amalının xalqa layiqli xidmətdən ibarət olduğunu əməli fəaliyyəti ilə nümayiş etdirməklə yanaşı, gələcək müstəqilliyə etibarlı zəmin formalaşdırdı. İrimiqyaslı tikinti-quruculuq, abadlıq işlərinə başlamaqla Azərbaycan həyatında intibah mərhələsinin əsasını qoydu. Ölkənin gələcəyini, müstəqilliyini düşünərək SSRİ rəhbərliyi qarşısında təkidli tələblər irəli sürdü, strateji əhəmiyyətli bir sıra sənaye və istehsal müəssisələrinin respublikada inşasına nail oldu. Həyata keçirdiyi səmərəli islahatlarla çox qısa zamanda – 70-ci illərin ortalarında Azərbaycanın iqtisadi inkişaf göstəricilərinə görə keçmiş ittifaq miqyasında ilk yerlərdən birini tutmasını təmin etdi.

Keçmiş Sovet İttifaqı kimi böyük bir dövlətin zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək respublikanı tərəqqi yoluna çıxaran ümummilli lider Heydər Əliyev yeni və mütərəqqi sənaye sahələrinin yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirdi. Sənayenin inkişaf səviyyəsinə görə respublikanın bütün bölgələrinin proporsional tərəqqisi yönümündə ardıcıl addımlar atıldı, istehsalla bilavasitə bağlı elmi-tədqiqat sahələrinin genişləndirilməsi üçün kompleks tədbirlər görüldü. Elmi-texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalatda tətbiqi Azərbaycanın bütün ittifaqda qabaqcıl mövqelərə çıxmasına, ölkənin sosial-iqtisadi həyatında yüksəlişə rəvac verdi.

Həmin dövrün şanlı quruculuq salnaməsinin şahidi kimi deyə bilərəm ki, Heydər Əliyev qısa müddətdə respublika iqtisadiyyatında ciddi keyfiyyət dəyişikliklərinə nail olmaqla Azərbaycanı xammal istehsalçısından qabaqcıl, müasir texnika və texnologiya ilə təchiz olunmuş sənaye bazasına çevirə bildi. Ümumilikdə 1970-1985-ci illərdə Heydər Əliyevin təşəbbüsü və ciddi səyləri nəticəsində Azərbaycanda onlarca zavod, fabrik, istehsalat sahələri yaradıldı, 250-dən çox sənaye müəssisəsi fəaliyyətə başladı. Azərbaycan bir sıra istehsal sahələrinə görə Sovet İttifaqında aparıcı yer tutdu, burada istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac edildi.

70-80-ci illərdə Azərbaycanın iqtisadi inkişafının ən qabarıq nəticələri isə kənd təsərrüfatının ayrı-ayrı sahələrinin, xüsusən də pambıqçılıq sahəsinin yüksəlişində real təcəssümünü tapdı. Bu dövrdə kənd təsərrüfatının artım sürəti orta ittifaq səviyyəsini xeyli qabaqlamış, istehsal 2,5 dəfə artmışdı. Eyni zamanda, ittifaq miqyasında istehsal olunan pambıq ipliyinin 9,6, ipək xammalın 11,7 faizi məhz Azərbaycanın payına düşürdü. Ulu öndərin tez-tez yerlərdə olaraq əmək adamları ilə görüşməsi, onları mükafatlandırması insanların halal zəhmətə, torpağa bağlılığını artırır, ölkəyə bol məhsul, süfrələrə ruzi-bərəkət gətirirdi.

Ulu öndər iqtisadiyyatı yüksəltmək üçün rüşvətxorluğa, oğurluğa, əliəyriliyə və mənəviyyata zidd digər təzahürlərə qarşı amansız mübarizə aparır, belə hallara yol verənlərin cəzalandırılmasını israr edirdi. Heydər Əliyevin hələ o dövrdən idarəçilikdə təməlini qoyduğu mütərəqqi ənənələrdən biri də məhz xalq arasına çıxmaqla, sadə vətəndaşlarla canlı ünsiyyət yaratmaqla mövcud problemləri, eləcə də dövlət məmurlarının işə münasibətini öyrənmək idi. Ulu öndər son dərəcə işgüzar olduğu kimi, həm də tələbkar rəhbər idi. Rayonlara təyin etdiyi rəhbər şəxslərdən ən böyük və israrlı tələbi səylə işləmək, bütün sahələrdə inkişafa nail olmaq, insanları razı salmaq idi. 70-ci illərdə tez-tez bölgələrdə olan ümummilli lider sadə zəhmət adamları ilə görüşür, onlarla söhbətləşir, problemlərinin yerindəcə həlli üçün addımlar atır, ədalətsizliyə və məsuliyyətsizliyə yol verən məmurları sərt şəkildə cəzalandırırdı.

70-ci illərdə yüksək ixtisaslı kadr kimi yetişərək bu gün də dövlət idarəçiliyində mühüm postlar tutan insanlar ulu öndərin ali məktəblərdə hökm sürən acınacaqlı vəziyyətin aradan qaldırılması, qəbul prosesində

şəffaflığın təmin edilməsi sahəsindəki qətiyyətli və prinsipial addımlarını yüksək ehtiramla xatırlayırlar. Ulu öndər hələ o dövrlərdən milli inkişafın yeganə yolunu xalqın yüksək təhsil almasında, maariflənməsində görür, respublikada elmin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirirdi. Ümummilli liderin yeritdiyi siyasətin dərinliyi və uzaq hədəflərə hesablanması da məhz onun elmi prinsiplər üzərində qurulması, zəngin intellektual potensiala söykənməsi ilə şərtlənirdi. Həmin illərdə respublikamızda məktəb tikintisi prosesinin sürətlənməsi, maarif işinin yüksək səviyyədə təşkili, ixtisaslı kadrlar hazırlayan yeni ali məktəblərin açılması, fundamental və humanitar elmlərin inkişafı, əldə olunan kəşflərin iqtisadiyyatın bütün sahələrində tətbiqi ulu öndərin təhsil siyasətinin əsas leytmotivini təşkil edirdi. Məhz ümummilli liderin şəxsi müdaxiləsi və qayğısı ilə 70-ci illərdən başlayaraq Bakıdakı ali hərbi məktəblərə qəbul olunan gənclərin sırasında azərbaycanlıların sayı intensiv şəkildə artmağa başlamış, bu sahədə milliləşdirmə prosesinə start verilmişdi.

Həmin illərdə milli-mütərəqqi fikrin və ictimai düşüncənin başlıca mərkəzi kimi çıxış etməklə flaqman ali məktəb statusunu qoruyub saxlayan, milli kadr hazırlığında əsas yükü üzərinə götürən Azərbaycan Dövlət Universitetinə diqqət və qayğının artırılması, bu təhsil ocağının fəaliyyətinin gücləndirilməsi də ulu öndərin xüsusi diqqət mərkəzində olmuşdur. Heydər Əliyev sovet Azərbaycanına hakimiyyətə gəlişindən dərhal sonra universitetin 50 illik yubileyinin keçirilməsinə qərar vermiş, 1969-cu il noyabrın 1-də bu təntənəli tədbirdə iştirak etmişdir. Ümummilli lider yubiley mərasimində totalitar sovet rejiminin tətbiq etdiyi bütün baryerləri aşaraq Azərbaycan dilində çıxış etmiş, onun dərin məzmunlu nitqi sonrakı mərhələdə milli təhsil manifestinə çevrilmişdir.

Təhsil sistemində saflıq, obyektivlik, ədalət prinsiplərinin qorunması da daim xüsusi diqqətdə saxlanılmışdır. Ümummilli liderin birbaşa nəzarəti altında ali və orta ixtisas məktəblərinə qəbul olunan tələbələrin, həmçinin istehsalatın müxtəlif sahələrinə, eləcə də elm-təhsil mərkəzlərinə təyinat alan məzunların sosial tərkibi imkansız ailələrin hesabına daim genişləndirilmiş və sağlamlaşdırılmışdır. Ümummilli lider Heydər Əliyev respublika rəhbərliyinə gəldiyi ilk gündən qəbul prosesində neqativ hallara qarşı mübarizəni gücləndirərək ali təhsil ocaqlarına qəbul prosesinin şəffaf, obyektiv və azad şəraitdə keçməsi üçün bütün zəruri tədbirləri həyata keçirmiş, bu sahədə ciddi dönüşün yaranmasına nail olmuşdur.

Ulu öndər çox sonralar – 2000-ci il 22 iyul tarixində jurnalistlərlə görüşündə yüksək vəzifəli şəxslərin övladlarının hüquq fakültəsinə qəbulunu yasaqlayan qətiyyətli qərar qəbul etməsini belə izah etmişdir: "…Vaxtilə mən ali məktəblərə tələbə qəbulunda rüşvətxorluğa qarşı mübarizə aparırdım. Məsələn, 1970-ci illərdə nəyi gördüm? Bizim dövlət universitetinin hüquq fakültəsi var. O vaxt həmin fakültəyə hər il 50 nəfər qəbul olunurdu. Mən bir dəfə baxıb gördüm ki, bu hüquq fakültəsinə qəbul olunanların təqribən 95 faizi prokurorun, məhkəmə sədrinin, nazirin oğludur və sairə. Yaxşı, belə çıxır ki, atası prokuror, sonra da oğlu, nəvəsi prokuror olacaq. Bəs başqa ailələrdən olan istedadlı gənclər necə olsun? Bəzilərinin heç atası yoxdur, bəs o, hüquq fakültəsinə necə daxil olsun? O vaxt, o cümlədən tarix və şərqşünaslıq fakültələri çox dəbdə idi. Mən vəzifədə olan şəxslərin, xüsusən hüquq-mühafizə orqanlarında – milisdə, prokurorluqda və sairə – çalışan şəxslərin uşaqlarının bu fakültələrə qəbul olunmasını qadağan etdim. Bu, cəmiyyətdə çox böyük əhval-ruhiyyə yaratdı. İndi mən prokurorluqda, polisdə çalışan bəzi işçilərlə görüşürəm. Onlar deyirlər ki, "Bilirsiniz, biz o vaxt Sizin sayənizdə hüquq fakültəsinə daxil ola bildik. Yoxsa bu fakültəyə girə bilməzdik, çünki biz kənddən gəlmişdik, kasıb adam idik, nə rüşvət verməyə pulumuz, nə də himayədarlıq etməyə adamımız var idi". Mən bütün bunları millətimizə görə etdim".

Ulu öndər istər 70-ci illərdə Azərbaycanda, istərsə də 80-ci illərdə Kremldə yüksək vəzifə tutarkən universitetə böyük qayğı və diqqətini əsirgəməmiş, məhz onun böyük səyləri nəticəsində yüzlərlə azərbaycanlı gənc keçmiş ittifaqın müxtəlif guşələrində yerləşən nüfuzlu ali məktəblərdə o dövr üçün prioritet istiqamətli ixtisaslara yiyələnmişlər. Məhz həmin dövrdə yetişmiş yüksək səviyyəli kadrlar bu gün Azərbaycanda hüquqi dövlət quruculuğu prosesində yaxından iştirak edirlər. O illərdə nüfuzlu ali təhsil ocaqlarına qəbul olunmuş yüzlərlə sadə zəhmətkeş övladı ulu öndərin bu xidmətini daim böyük ehtiramla, rəğbətlə xatırlayır.

Xüsusi vurğulamaq lazımdır ki, elmin, təhsilin inkişafı, milli-mənəvi dəyərlərə həssas münasibət məsələləri müstəqil Azərbaycan Respublikasına rəhbərliyi dövründə də ulu öndər Heydər Əliyevin fəaliyyətinin əsas qayəsini, leytmotivini təşkil etmişdir. Dövlət müstəqilliyinin ilk illərində ölkəyə rəhbərlik etmiş naşı qüvvələrin biganə münasibətilə üzləşərək tənəzzülə uğrayan bu sahələr məhz Heydər Əliyevin xalqın israrlı tələbi ilə hakimiyyətə qayıdışından sonra böhrandan çıxmışdır. Ümummilli lider 1993-cü ilin 28 sentyabrında ictimaiyyət nümayəndələri ilə ilk görüş yeri kimi məhz Azərbaycan Elmlər Akademiyasını seçməklə intellektual potensialın daşıyıcıları olan elm xadimlərinin, ziyalıların cəmiyyətdəki roluna necə böyük önəm verdiyini bir daha nümayiş etdirmişdir.

Ulu öndər Heydər Əliyev cəmiyyətin mənəvi-ideoloji cəhətdən yetkinləşməsində, ictimai şüurun yeniləşməsində humanitar elmlərin, iqtisadi sistemin tənəzzüldən qurtulmasında, milli iqtisadi inkişaf modelinin

düzgün müəyyənləşdirilməsində, elmlə istehsalatın üzvi vəhdətinin təmin olunmasında fundamental elmlərin rolunu düzgün dəyərləndirmişdir. 1997-ci ilin 31 yanvarında isə Azərbaycan Elmlər Akademiyasında dərin məzmunlu nitq söyləyən böyük strateq Heydər Əliyev ictimai və humanitar elm sahələrində yeni dövrün tələblərinə uyğun yeniləşmənin, eləcə də sovetlər birliyi dövründən qalmış, köhnəlmiş stereotiplərdən, səmərəsiz tədqiqat metodlarından uzaqlaşmağın vacibliyini diqqətə çəkmiş, xüsusən də tarixçiləri Azərbaycanın keçmişi ilə bağlı həqiqətləri daha obyektiv araşdırmağa, dövlətçilik maraqları baxımından bu sahəyə xüsusi həssaslıqla yanaşmağa çağırmışdır: "Biz indi xalqımızın tarixinin yaradılması işini gərək diqqət mərkəzinə alaq. Xatırlaya bilərsiniz, 70-ci illərdə mən dəfələrlə Elmlər Akademiyasının qarşısında vəzifə qoymuşdum ki, Azərbaycanın tarixi yazılmalıdır. Amma bu gün mənim haqqım var deyəm ki, tarixçilərimiz bu vəzifəni yerinə yetirmədilər, Azərbaycanın tarixi yazılmamışdır. Bizim tarixçilərimiz bir tərəfdən çəkişmə ilə məşğul oldular, hərə öz konsepsiyasını irəliyə aparmağa çalışdı. Amma Azərbaycanın tarixi yazılmalıdır. Alimlərimizin, tarixçilərimizin günahından yox, ovaxt kı ümumi ideologiyanın təsiri, yaxud bu ideologiyanın tələbi ilə yazılan tarix də şübhəsiz ki, indi bizi qane edə bilməz. Məktəbə gedən gənc gərək Azərbaycanın tarixini bilsin, oxusun, öyrənsin. Amma o, köhnə dərsliklərdən bunu öyrənə bilməz".

Ümummilli lider elmin, ali təhsilin ölkənin perspektiv inkişafındakı müstəsna rolunu nəzərə alaraq ali məktəblərin fəaliyyətinin də yeni dövrün tələbləri səviyyəsində qurulmasını təmin etmişdir. Əminliklə deyə bilərik ki, yeni mərhələdə Bakı Dövlət Universitetinin keçmiş nüfuzunun və kadr potensialının bərpası, cəmiyyət üçün layiqli kadrların hazırlanmasında aparıcı söz sahibinə çevrilməsi məhz ulu öndər Heydər Əliyevin tarixi xidmətlərinin nəticəsidir. Ümummilli lider BDU-nun 80 illik yubileyindəki tarixi çıxışında deyirdi ki, Azərbaycanın keçmişini, onun mədəniyyətini, elm və iqtisadiyyatını, bütövlükdə cəmiyyəti Bakı Dövlət Universitetindən ayrı təsəvvür etmək mümkün deyildir. "Bakı Dövlət Universiteti Azərbaycan xalqının milli sərvətidir", – deyən dahi rəhbərin universitetə qayğısı bu ali təhsil müəssisəsinə yeni həyat vermiş, çətinliklərə rəğmən, onu yeni dövrün tələbləri səviyyəsində mütəxəssis hazırlığına sövq etmişdir. Universitet hər zaman dünya şöhrətli məzununun xüsusi qayğısını hiss etmiş, onun qarşıya qoyduğu ali ideyalar elm-təhsil məbədinin tələbə və professor-müəllim heyətinin əsas fəaliyyət stimulvericisinə çevrilmişdir. Ümummilli liderin təşəbbüsü ilə BDU-nun 80 illik yubileyinin təntənəli şəkildə qeyd olunması da bu diqqətin əyani təzahürü olmuşdur.

Ulu öndər Azərbaycanı davamlı və sabit inkişaf yoluna çıxarmaqla yanaşı, bu siyasəti özündən sonra da layiqincə davam etdirə biləcək lider yetişdirmişdir. 2003-cü ildən Azərbaycana inamla rəhbərlik edən dövlət başçısı İlham Əliyev keyfiyyətcə yeni mərhələdə milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirmiş, ölkənin bütün potensialını intellektual resursların, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etmişdir. Ötən 7 ildə uğurla gerçəkləşdirilən sosial-iqtisadi islahatların – davamlı və tarazlı inkişafı stimullaşdıran dövlət proqramlarının, ictimai həyatın bütün sahələrini əhatə edən fərman və sərəncamların nəticəsi olaraq respublikamız son illərdə dünyanın sürətli inkişaf yolunda olan, qlobal maliyyə-iqtisadi böhrana əzmlə sinə gərən dövlətləri sırasına yüksəlmişdir. Cənab İlham Əliyevin elmi əsaslarla yeritdiyi sosial-iqtisadi strategiya nəticəsində cəmiyyətin ümumi potensialının milli məqsədlər naminə səfərbər olunması inkişaf prosesində yüksək dinamizmi və məqsədyönlüyü təmin etmiş, hər bir mərhələ üçün qarşıda duran vəzifələrin həllinə real imkanlar açmışdır.

İqtisadi qüdrəti ilə tarixən dünya siyasətinə təsir imkanlarını qoruyub saxlamış bir çox dövlətlərin gələcək taleyi heç də onların malik olduğu zəngin təbii sərvətlərlə deyil, ilk növbədə, elmi-intellektual potensialı, insan kapitalı ilə şərtlənmişdir. İnkişafını yalnız malik olduğu zəngin neft-qaz ehtiyatlarının gətirdiyi dividendlərə bağlamayan müstəqil Azərbaycan da mövcud resurslarını məhz intellektual resursların gücləndirilməsi yönümündə qurur. "İqtisadi inkişaf sürətinə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Biz bu maddi dəyərləri, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir və beləliklə, ölkənin intellektual potensialı da möhkəmlənir. Bu gün vaxt gəlibdir ki, biz məhz bu sahəyə sərmayələr qoyaq", – deyən cənab İlham Əliyev neftdən əldə olunan gəlirlərin insan kapitalına çevrilməsi istiqamətində məqsədyönlü siyasət həyata keçirir. Dövlət başçısı haqlı olaraq bildirir ki, neft Azərbaycan üçün məqsəd deyil, davamlı iqtisadi tərəqqini təmin etmək üçün vasitədir. Dünya təcrübəsində iqtisadiyyatın yalnız neft üzərində qurulması, habelə neft gəlirlərinə güvənlik nəticəsində iqtisadi sistemi iflic edən "Holland sindromu" kimi mənfi presedent də var. Məhz buna görə də möhtərəm Prezident iqtisadi inkişafa yalnız neft amili hesabına nail olmağı məqbul saymır, tarazlı və davamlı tərəqqi naminə qeyri-neft sektoruna, İKT-nin inkişafına xüsusi diqqət yetirilməsini önə çəkir.

Azərbaycan Prezidenti İlham Əliyevin təkmil elm və təhsil strategiyasında "nou-hau" texnologiyalarının dərindən mənimsənilməsi də mühüm istiqamət kimi diqqəti çəkir. Müasir dünyanın inkişaf perspektivlərini düzgün dəyərləndirən dövlət başçısı İlham Əliyev hələ 2003-cü ilin dekabrında Cenevrədə keçirilən

ümumdünya sammitində bəyan etmişdir ki, Azərbaycanda neftdən sonra prioritet sahə informasiya və kommunikasiya texnologiyalarının inkişafı olacaqdır. Dövlət başçısının 2004-cü il 21 avqust tarixli "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramının (2005-2007-ci illlər) təsdiq edilməsi haqqında", habelə 2008-ci il 10 iyun tarixli "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" sərəncamları Azərbaycan Respublikasında müasir informasiya və kommunikasiya texnologiyalarının geniş tətbiqi yolu ilə vahid ümummilli təhsil mühitinin yaradılması, əhalinin bütün təbəqələri üçün keyfiyyətli təhsil almaq imkanlarının təmin edilməsi məqsədinə xidmət etmişdir. Eyni zamanda nəzərə almaq lazımdır ki, xaricdə yüksək texnologiyalar əsasında təhsil alan gənclər gələcəkdə yüksək ixtisaslı kadr kimi respublikamıza qayıtdıqdan sonra burada normal iş şəraitinə malik olmalıdırlar. "Nou-hau" tipli texnologiyaların respublikamızda geniş tətbiqi, bu sahəyə investisiyaların qoyuluşu həm də xaricdə təhsil alaraq respublikaya dönəcək 5000-dək gəncin elmi-intellektual potensialından daha səmərəli və məqsədyönlü istifadəyə imkan yaradacaqdır.

Dövlət başçısı cənab İlham Əliyevin 2009-cu il oktyabrın 21-də imzaladığı sərəncamla Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılması da tədqiqatların stimullaşdırılmasının yeni maliyyə mexanizmi kimi diqqəti çəkir. Fondun yaradılması fundamental elmi tədqiqatların stimullaşdırılması, ölkənin təbii resurslarının, mədəni və tarixi irsinin öyrənilməsinin gücləndirilməsi, elmin müxtəlif sahələrində aparılan araşdırmaların səmərəliyinin artırılması məqsədilə əsaslandırılır.

Azərbaycan Prezidentinin 4 may 2009-cu il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı" elm sahəsində həyata keçiriləcək islahatların konseptual əsaslarını özündə əks etdirir. Elmin inkişafını nəzərdə tutan Milli Strategiyanın əsas məqsədi ölkənin mövcud tələbləri nöqteyi-nəzərindən Azərbaycan elminin strukturunun müəyyənləşdirilməsindən; Azərbaycan elminin dünya elmi, texnika və texnologiyasının prioritet istiqamətlərinə müvafiq şəkildə təşkilindən; respublikanın iqtisadi inkişafında elmin rolunun artırılmasından; yüksək ixtisaslı kadrların hazırlanmasının təmin edilməsindən; mühüm sosial-iqtisadi və ictimai-siyasi vəzifələrin həlli məqsədilə Azərbaycan Respublikasında fundamental və tətbiqi tədqiqatların prioritetlərinin müəyyən edilməsindən ibarətdir.

Prezident İlham Əliyevin 22 may 2009-cu il tarixli "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə sərəncamı isə ali məktəb sistemində islahatların yeni dövrün tələblərinə uyğun aparılması baxımından xüsusi əhəmiyyət daşıyır. Cənab İlham Əliyevin "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" 31 yanvar 2008-ci il sərəncamı da Azərbaycan təhsilinin Avratlantik məkana inteqrasiyası baxımından mühüm əhəmiyyətə malikdir. Ali təhsildə islahatların da məhz bu prinsiplər əsasında aparılması qarşıda duran vacib məsələlərdən biridir.

Azərbaycan Prezidentinin "Azərbaycan Milli Elmlər Akademiyasının gənc alimlərinin Avropanın elmi mərkəzlərində doktorantura təhsilinin maliyyələşdirilməsi haqqında" 2010-cu il 9 fevral tarixli sərəncamı isə respublikada elmi tədqiqatların müasir standartlar səviyyəsində aparılmasını, ölkənin elmi kadr potensialının artırılmasını və Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyasının təmin olunmasını daha da sürətləndirmək məqsədi daşıyır. Sərəncamla Azərbaycan Respublikasının 2010-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Milli Elmlər Akademiyasına gənc alimlərin Avropanın elmi mərkəzlərinin doktoranturalarında təhsil almaları üçün 500 min (beş yüz min) manat məbləğində vəsait ayrılmışdır. Bu, sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində elmi tədqiqatların Avropa səviyyəsinə çatdırılmasını, gənc alimlərin dünya elminə inteqrasiyasını nəzərdə tutur.

Ölkədə elm və təhsilin inkişafında yaranmış keyfiyyətcə yeni mərhələnin reallıqları, həyata keçirilən islahatların istiqaməti Bakı Dövlət Universitetinin fəaliyyətində də ciddiliklə nəzərə alınır. Gələcək həyata məhz bu ali məktəbdən qədəm qoyan on minlərlə Azərbaycan gəncinin müasir biliklərə yiyələnməsi, elmi təşəbbüskarlığının artması, kompüter və informasiya texnologiyalarını dərindən mənimsəməsi üçün görülən işlər ardıcıl və sistemli səciyyə daşıyır. Bakı Dövlət Universiteti bu gün çağdaş dünyanın standartlarına uyğun intellektual, yüksək ixtisaslı kadrların hazırlanması işini uğurla həyata keçirməklə burada tətbiq edilən tədrisin keyfiyyətinə, universitetin müasir tələblərə cavab verən yüksək maddi-texniki bazasına, beynəlxalq əlaqələrinə, ölkə hüdudlarından kənardakı mövqeyinə görə MDB məkanının liderlərindən biridir.

Azərbaycan Prezidenti İlham Əliyev Bakı Dövlət Universitetinin cəmiyyət həyatındakı yerini və müstəsna rolunu yüksək dəyərləndirir. Dövlət başçısının 24 aprel 2009-cu il tarixdə universitetin 90 illik yubileyinin keçirilməsi ilə bağlı sərəncam imzalaması, noyabrda isə universitetin təntənəli yubileyinin təşkili də

müsəlman Şərqində ilk Avropa tipli ali təhsil ocağı olan BDU-nun milli kadr hazırlığındakı müstəsna yeri və roluna verilən yüksək qiymətdir.

Xüsusi vurğulamaq istərdim ki, BDU-da ulu öndər Heydər Əliyevin mənəvi irsinin, bu dahi şəxsiyyətin zəngin dövlətçilik təcrübəsinin, idarəetmə fəlsəfəsinin öyrənilməsi və gənc nəslə çatdırılması mühüm vəzifə kimi qiymətləndirilir. Hazırda universitetdə fəaliyyət göstərən "Heydər Əliyev muzeyi" və "Heydər Əliyev məktəbi" bu istiqamətdə ciddi araşdırmalar aparır. Ulu öndərin həyatının şərəfli səhifələrinin dolğun şəkildə ictimaiyyətə çatdırılması, onun zəngin ideya-fəlsəfi dünyagörüşünə əsaslanan müasir dövlətçilik konsepsiyasının təbliği və bu konsepsiyadan irəli gələn vəzifələrin tələbələrə aşılanması yönündə mühüm işlər görülür.

Uzun əsrlər boyu böyük şəxsiyyət və zaman qarşılıqlı münasibətlərinə dair siyasi və ictimai baxışlar kifayət qədər rəngarəng və fərqli olması ilə seçilmişdir. Lakin bütün bu rəngarənglik və müxtəliflikdə daxili bir bağlılıq da həmişə aydın şəkildə özünü büruzə vermişdir. Yəni, insanlığın tarixi şəxsiyyəti zamansız, zamanı isə şəxsiyyətsiz qavramasının mümkünsüzlüyü təsdiqini tapmışdır. Bu məntiqdən yanaşdıqda etiraf etməliyik ki, Azərbaycanın müasir tarixi Heydər Əliyev dühasından ayrı təsəvvür edilə bilməz. Bəli, Heydər Əliyev möhtəşəm quruculuq siyasəti ilə Azərbaycanın ən yeni tarixini yazmış fenomen şəxsiyyətdir! Bu siyasəti inamla davam etdirən dövlət başçısı İlham Əliyev isə ulu öndərin yaratdığı şanlı tarixi yaşatmaqla bahəm, həm də yeni dövlətçilik məktəbinin banisinə çevrilmiş, fəaliyyəti ilə yeni bir tarixi epoxanın əsasını qoymuşdur.

"**Azərbaycan**".-2010.-11 dekabr.-N 272.-S.3.

# MİLLƏT MÜƏLLİMİNƏ TARİXİN QİYMƏTİ

**RAFAEL HÜSEYNOV,**
Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü,
filologiya elmləri doktoru, professor

**O özü, buna qətiyyən şübhə yox ki, bütün zamanlar üçün Azərbaycanın ən böyük müəllimlərindən biri olaraq qalacaq. O, məktəbin sinif otaqlarına, universitet auditoriyalarına daxil olaraq dərs deyən, mühazirələr oxuyan müəllim deyildi.**

**Onun dərs otağı tarix səhnəsiydi.**

**O, müstəsna bir tarix müəllimi kimi Tarixi yarada-yarada həmvətənlərinə bu tarixi yaşamağın, bu tarix içərisində ləyaqətlə irəliləməyin dərslərini verirdi.**

O, ən böyük müəllimlərdən olduğundan ömrü boyu müəllimin qədrini bildi, həyatı boyunca həmişə dərs aldığı müəllimlərini əziz tutdu.

Ona bilavasitə dərs demiş müəllimlər vardı.

Orta məktəbdə, ali məktəbdə dərs aldığı müəllimlərin hamısını sayğıyla xatırlayırdı.

Lakin bilavasitə dərs almadığı müəllimləri lap çox idi və onların da hər birini daim minnətdar duyğularla anırdı.

Oxumağı, öyrənməyi həmişə sevdi. Onunçün bilik mənbəyinə çevrilmiş hər kitabı, hər əsəri, hər şəxsiyyəti isə istəkli müəllimləri cərgəsindən hesab etdi, özünü onların hər birinə borclu saydı, məqamı düşdükcə bu borcundan çıxmağa can atdı.

"Müəllim" deyə qəbul etdiyi, zəkasına, yenilməz şəxsiyyətinə məhəbbət bəslədiyi zirvələrdən biri Hüseyn Cavid idi.

Böyük azərbaycanlı Heydər Əliyev bir neçə minillik Vətən ədəbiyyatı tarixinə kamilcə vaqif idi, söz sərvətimizi yaratmış şair və yazıçıların əksərinin ömür və sənət yolunu bir ədəbiyyatşünasdan daha dəqiq qiymətləndirmək səriştəsinə malik idi.

Bu, mübaliğəli bir yanaşmanın təsiri ilə, hissə qapılaraq gəlinən qənaət deyil.

Heydər Əliyevin istənilən ədəbi abidə və istənilən qüdrətli ədəbi simaya verdiyi qiymətin, ifadə etdiyi qənaətin təkrarsızlığı, peşəkar ədəbiyyatşünas sözündən daha sərrast olması onun miqyaslı düşüncəsi ilə bağlıdır.

Geniş bilik və dərin təfəkkür sahibi Heydər Əliyev hər ədəbi şəxsiyyət və ədəbi incini yalnız bir fərd olaraq görmür, bütöv Azərbaycan tarixinin işıqlı zərrəsi olaraq çox ucalardan seyr etməyi bacarırdı.

Nadir cəmiyyətşünas olaraq Heydər Əliyevin məhz hər kəsə müyəssər olmayan qabiliyyəti – istənilən hadisəni hadisələrin axarında, istənilən şəxsiyyəti şəxsiyyətlərin qatarında seyr edərək müqayisələrdə qiymətləndirə bilmək gücü onun çıxardığı nəticələri adilikdən aralayırdı.

Cavid onun oxuduğu, öyrəndiyi, müəllim saydığı klassiklərin əvvəlincisi idi.

Tarixi sıra baxımından yox, bəslədiyi rəğbətlər nöqteyi-nəzərindən!

Müsahibələrindən birində, "sevimli şairiniz" sualını cavablandırarkən özü bunu etiraf etmişdi.

Parlaq ədəbi şəxsiyyətlərimizin əksərinin həyatını da, yaradıcılığını da yaxşı bilmiş, onların təxminən hər biri haqqında mötəbər fikrini bildirmiş Heydər Əliyevin o qədər ulduz arasında Cavidi seçməsi, onu ən üstün sayması təsadüf deyildi.

Caviddə qədimliklə müasirlik qovuşurdu.

Cavid özü də bir cəmiyyətşünas, insanşünas idi ki, Heydər Əliyev onu çox mənada qəlib, ülgü kimi qavrayırdı.

Digər tərəfdən, Cavid şəxsiyyətinin bütövlüyü, sarsılmazlığı da başqa bir qiymətli örnək idi.

Tarix sınaqlarında, zaman fırtınalarında neçələrinin necə əyilmiş olduğunu başqalarından daha yaxşı bilən Heydər Əliyev Cavidin heç bir zəmanə qasırğası qarşısında məğrurluğunu itirmədiyindən də hər kəsdən daha əvvəl xəbərdar idi.

Heydərbaba dağına
"Salam!" dedi oğullar,
Bu xalqın o dağdan da
Yüksək olan dağı var.
Sevə-sevə bu millət
Sənə "Ata" söylədi,
"Səndən uca zirvə yox,

Heydər baba!" söylədi.
Aylar, illər ötsə də,
Zirvələrdə qalarsan,
Sənə salam deyəcək
Daim can Azərbaycan.
İldırımlar şaxanda
Sən dövlətin yanında.
Sellər, sular axanda,
Sən millətin yanında.
Sən bu yurdun uğrunda
Yanan, sönməz bir çıraq,
İstiqlalı qoruyan
Yenilməyən bir dayaq.
Salam, ey böyük öndər,
Adın, yolun əbədi.
Salam, ey ulu Heydər,
Millətin səninlədi.

Şəxsiyyətdə bu keyfiyyətə xüsusi dəyər verdiyindən Cavidə eşqi bir qədər də artırdı.

Cavid onunçün bir təkrarsız şair, müdrik filosof olmaqdan savayı müəllim, dost, məsləhətçi, könül sirdaşı idi.

Elə bu səbəbdən Cavid haqqındakı ən böyük əsəri yaratmaq səadəti də Heydər Əliyevə müyəssər oldu.

Cavid barəsində lap çoxlu elmi və bədii əsərlər yazılıb.

Cavidin sayı bilinməyəcək qədər çoxlu rəsmləri çəkilib, abidələri yapılıb.

Əsərlərinə musiqilər bəstələnib, özünə nəğmələr həsr edilib.

Heydər Əliyev nə yazıçı idi, nə tədqiqatçı alim, nə heykəltəraş, nə bəstəkar, nə rəssam…

Amma ən nəhəng Cavid Əsərini, ən möhtəşəm Cavid Abidəsini doğurmaq səadəti onun bəxtinə düşdü.

Başqa sənətkarların ayrı-ayrılıqda Cavidlə bağlı vücuda gətirdikləri hər bir sənət əsərindən daha yaxşısını yaratmaq, yaxud ona bənzərini ortaya qoymaq mümkündür.

Cavidlə bağlı belə əsərlər indiyədək yaranıb, bundan sonra da yaradılacaq.

Lakin Heydər Əliyevin doğurduğu Cavid Əsərini nə ona qədər yaradan olmuşdu, nə də bundan belə xəlq edən olacaq.

Hüseyn Cavid 1937-ci ilin qurbanlarından idi.

Müasirlərinin "əfəndi" deyərək seçdiyi, sağkən klassikcə qiymətləndirdiyi və sovet siyasi repressiyaları bir sel kimi coşmağa başladığı 1930-cu illərdən daha öncə sıxışdırılmağa, təqib edilməyə başlanmış Cavid peyğəmbər xislətli və siqlətli yaradıcı idi.

O yalnız olanları yazmırdı, olacaqları da irəlicədən qələmə alırdı, millətin yolunun necə olmalı olduğunu da qabaqcadan müəyyənləşdirərək şeirləşdirirdi, çağdaşlarına və xələflərinə ərməğan edirdi.

Özü demiş, "əsrinin öksüzü" – zamanın yetimi olan belə dahilərsə dünyanın hər yerində, bütün tarix ərzində məşəqqətlərə, zərbələrə, acılara mübtəla qılınıb.

Heydər Əliyev uzun illər sovet təhlükəsizlik xidməti şəbəkəsində işlədiyindən həmin laübalı təşkilatın arxivlərinin kənar gözlərə tam qapalı olduğu vaxtlardan işin içərisindəki bir şəxs kimi Cavidin hansı müsibətlərdən keçdiyini adi insanlardan, əlbəttə ki, daha dürüst və təfərrüatlı bilirdi.

1937-ci il iyunun 3-də keçirilən Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının nəhs – onüçüncü qurultayında dövlət tərəfindən rəsmən "xalq düşməni" elan edilən, təxirə salmadan elə həmin gecə dərhal həbsə alınan, adı səhnələrdən, imzası qəzetlərdən, əsərləri dərsliklərdən və kitabxanalardan yığışdırılan, tarixdən silinməsi üçün bütün qəddar tədbirlər görülən Cavid ta 1956-cı ilə qədər sırf yasaq adların "qara siyahı"sında qaldı.

Hətta həmin bəraətlər fəsli, siyasi iqlimdə yumşalmalar başlanandan sonra da Cavidə münasibətdəki soyuqluğa son qoyulmadı.

Digər bəraət almışlardan fərqli olaraq, Cavidin bir çox əsərləri əvvəlki kimi qadağan kitablar zümrəsində qaldı, sovet əyyamlarının ən qart ittihamlarından sayılan "pantürkist" damğası Cavidin üstündən götürülmədi.

Cavidin tam bəraəti, xalqa itkisiz, bütün yaradıcılığı ilə bütöv qayıdışı məhz Heydər Əliyevin sayəsində mümkün oldu.

1980-ci illərin əvvəlləri idi, sovet dövləti hələ yerində idi, Cavidin o günəcən yasaqlıqda qalmış bir çox əsərləri rejimin siyasəti baxımından zərərli mahiyyətini saxlayırdı və bu şairə tam bəraət vermək, əslində, rəsmi ideologiya baxımından düzgün deyildi.

Heydər Əliyev həmin rəsmi ideologiyanın öndə gedən təmsilçilərindən biriydi.

Bu statusa malik ola-ola Cavidi düşmənlikdən birdəfəlik çıxarmaq, onun təbliğ edilən ideoloji xəttə bir çox məqamlarda yad olan əsərlərinə də vətəndaşlıq hüququ bağışlamaq vaxtına görə ağlasığmaz şücaət, yalnız vətəndaş hünəri deyil, siyasi qəhrəmanlıq idi.

Heç kəsin bacarmayacağı bu əməli gerçəkləşdirmək Heydər Əliyevə qismət oldu.

Hüseyn Cavid 1882-ci il oktyabrın 24-də Naxçıvanda doğulmuş, 1941-ci il dekabın 5-də Sibirdə gözlərini əbədilik yummuşdu.

Əslində o, 1934-cü ilin 4 iyun gecəsində həyatdan, mühitdən, ədəbi aləmdən və əzizlərindən təcrid ediləndən sonra bitmişdi.

Çünki 1939-cu ilin yayınadək Bakı həbsxanalarında saxlandıqdan sonra sürgün edilsə, uzaq buzlu ünvanlarda hələ bir müddət sağ qalsa da, buna dirilik demək olmaz.

Cavidin qələmi 1937-nin iyununda susan gündən onun ədəbi varlığı da bitmişdi.

Şairin 100 yaşını ali ədəbi bayram və sözün yüksək anlamında qayıdış mərasimi kimi düşünən Heydər Əliyev Azərbaycan Respublikasının rəhbəri kimi sərəncam imzalayır.

Qəbul olunmuş qaydalara müvafiq olaraq keçirilməsi nəzərdə tutulan tədbirlərlə bağlı layihə hazırlanaraq onun masası üstünə qoyulur.

O dövrdə Azərbaycan KP MK-da ideologiya üzrə kaitb işləmiş və bu məsələlərə bilavasitə cavabdeh olan Həsən Həsənov xatırlayır ki, Heydər Əliyev həmin layihəni narazılıqla qarşıladı, özü qələm götürərək bu yuvarlaq ildönümünü qeyri-adi bayrama çevirəcək maddələri bircə-bircə mətnə əlavə etdi.

Bu sırada ən təsəvvürəsığmaz təşəbbüs isə Cavidin nəşinin Sibirdən Azərbaycana gətirilməsi idi.

Sovet tarixində hələ belə hadisə olmamışdı.

Hələ heç bir repressiya qurbanı şimal cəhənnəmindən qurtularaq Vətəninə dönməmişdi.

Heydər Əliyev Kremldəki nüfuzundan, SSRİ-nin ən ali səviyyəsində sözükeçərliyi və təsir imkanlarından istifadə edərək bu icazəni ala bildi, 59 yaşında Sibir buzlaqlarına tapşırılmış Cavidi 100 yaşının tamamında Azərbaycana qaytardı, ustadın tabutu başında fəxri qarovulda özü dayandı.

Həsən Həsənov həmin unudulmaz günlərlə bağlı bir maraqlı əhvalatı da xatırlayır.

Yubiley tədbirlərinin gerçəkləşməyə, mətbuat səhifələrində ardıcıl yazıların dərc edilməyə başladığı günlərdən birində Heydər Əliyev onu kabinetinə çağırır: "Gevorkov gəlmişdi. Şikayətlənir ki, niyə Cavidi internasionalist elan edirsiniz. Yubileyini keçirirsiniz-keçirin, sözümüz yox, amma o, beynəlmiləlçi olmayıb. O, qatı millətçi idi axı.

***

Hər qəmin sonu var,
Vaxt itkini sağaldar.
Bəs nədəndir həsrətin
bitməz,
artar.
Gəldin sən
Nur kimi.
Oldun sən
Elinlə hər an.
Getdin sən
Nur kimi.
Qalarsan
Bizimlə hər an.
Əbədi nəğmətək
səslənəcəksən.
Əziz yerin göründükcə
sən dönəcəksən.
Əbədi nəğmətək
səslənəcəksən,

Doğma yerin ürəklərdir,
sən gələcəksən.
Açdığın yol qalar
Xalqa səndən yadigar.
Qəlblərdə məhəbbətin
Daim yaşar.
Gəldin sən
Nur kimi.
Oldun sən
Elinlə hər an.
Getdin sən
Nur kimi.
Qalarsan
Bizimlə hər an.

***

Sənin adın nə əziz,
yurdun hər yerindəsən.
Sən xalqın ürəyində
sevgitək dərindəsən,
Vətənin hər övladı
sənin doğma balandır,
Yenilməz dövlətimiz
səndən bizə qalandır.
Tufanlardan çıxardın
sevimli millətini,
Sən qorudun ən şirin
azadlıq nemətini.
Yurdumuz yaşadıqca
bizimlə olacaqsan,
Bayrağım ucaldıqca
vətənlə qalacaqsan.
Ağ günlərin yeliylə
qabaranda yelkənlər
Fərəhi bölüşməyə
tələsər yenə Heydər.
Yurdun başı üstündə
dolaşanda buludlar,
Ən sadiq arxa kimi
öndər yenə qayıdar.
Sən xoşbəxt sabahları
yaradan ulu memar,
Böyük yol, sükançı da
səndən bizə yadigar.
Bu yol Heydər yoludur,
bu yol hünər yoludur,
Bu yol İlham yoludur,
bu yol inam doludur.
Bu yol Heydər yoludur,
Bu yol İlham yoludur,
Bu yol millət yoludur.

Bu mənim yanıma gəlib belə deyirsə, yəqin, Moskvaya da yazılar təşkil edəcəklər. Ona görə də Cavid əsərlərində ən müxtəlif xalqların övladı olan obrazları, şairin bütün xalqlara humanist münasibətini təsdiq edən nümunələri seçin, onun həqiqətən beynəlmiləlçi olduğunu göstərən yazılar hazırlayın, qəzetlərdə dərc etdirin”.

Həmin yüksək vəzifəli "ayıq" kommunist erməni, guya, hələ o vaxt içərimizdə olan ermənilərin üzübərilərindən idi, hesabla əl ermənisi idi. Dağlıq Qarabağ Muxtar Vilayətinə rəhbərlik edirdi, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Büro üzvü idi, Heydər Əliyevin də hansı iradə, səlahiyyət, güc sahibi olduğunu gözəl dərk edirdi və söz yox, ondan möhkəm də çəkinirdi.

Lakin bütün bunlara baxmayaraq, belə etirazı dilinə gətirməyə cürət etmişdisə…

Deməli, ona verilən fitva beləymiş.

Heydər Əliyevin ehtimalı tamam doğru idi. Çünki bu, birinci hal deyildi. Milli ruhun, milli özlüyün respublikadakı təntənəsinə xidmət edən istənilən addımdan sonra Kremlə Bakıdan ermənilər qalaq-qalaq məktublar yollayır, işə pəl vurmağa səy edirdilər. Eynən bu cür Nəriman Nərimanovun heykəli qoyulanda qanımıza susamış idbarlar Moskvanı məktub atəşinə tutmuşdular ki, Əliyev Azərbaycan paytaxtının ən hündür yerində Sergey Mironoviç Kirovunkundan da iri abidəni bir millətçiyə ucaldır.

Təsəvvür edin, Heydər Əliyev kimi qüdrətli, nüfuzlu, SSRİ-nin birinci şəxsinin nəzərində xüsusi inam və rəğbətə malik şəxsiyyət də belə qart manеələri dəf edə-edə irəliləmək zorunda idi.

Bu müqaviməti göstərənlər Heydər Əliyevin Sovet İttifaqı daxilindəki təsir imkanlarından xəbərdar olsalar da, maneçiliklər törətməkçün inadlarından əl çəkmirdilər.

Ona görə də bu olmuşların fonunda Heydər Əliyevin Azərbaycan üçün, millət üçün, konkret olaraq Cavid üçün etmiş olduqlarının hansı çətinliklər bahasına başa gəldiyi, həmin tarixi şərtlər içərisində necə vətəndaş igidliyi olması bütün əzəmətiylə indi daha aydın dərk edilir.

Heydər Əliyev Cavidi Azərbaycana qaytardı.

Bu sözün bütün mənalarında.

Və sonra onun özünün siyasi karyerası ayrı məcrada davam etdi. Bakıdan Moskvaya aparıldı, burada başladığı bir çox başqa nəcib işləri davam etdirmək digərlərinin öhdəsinə düşdü.

Ancaq Heydər Əliyevin açmış olduğu yollarla irəliləməyi də əlində geniş səlahiyyətlər olanlar bacarmadı.

Yalnız ona görə yox ki, onlar Heydər Əliyevdəki qabiliyyətə, təpərə sahib deyildilər.

Ən mühümü bu idi ki, onlar Heydər Əliyev kimi anlaya, qiymət verə və sevə bilmirdilər.

Cavidin 100 illiyi ilə bağlı sənəddə Bakıda şairin ev muzeyinin açılması məsələsi də vardı. Bəlkə də bu, həmin sənədin canını təşkil edən əsas maddə idi. Çünki Cavidin son yadigarı – qızı Turan xanım sağ idi və çox arzulayırdı ki, irtica dövrünün caynağından qurtararaq saxladığı sənədlər, atası ilə bağlı qoruyub hifz edə bildiyi əşyalar, yazılar ondan sonra it-bata düşməsin, bu yadigarların hamısını bir sabit ünvanda qovuşduraraq dünyadan arxayın getsin.

Heydər Əliyev Moskvaya getdi, muzey məsələsi həll edilməmiş qaldı.

Usanmadan qəzetlərə yazdıq, çıxışlar etdik, respublikaya bir-birinin ardınca rəhbərlik edənlərin hər birinə məktublar göndərdik.

Nəticəsiz qaldı.

Bu ümdə istəyin də çin olması üçün Heydər Əliyev təzədən qayıtmalıymış.

Qayıtdı, XX əsrin sonlarında Vaxtın hökmüylə yenidən müstəqillik əldə etmiş və bu istiqlalı Vaxtın kinayəsi ilə, XX yüzilin əvvəllərində olduğu kimi, iki yaşına çatmadan yenidən itirmək təhlükəsi ilə üzləşmiş ölkəyə nicatçı oldu, yurdda çox işləri yerbəyer etdi və növbə Cavidə çatdı.

Yox, əslində, Cavid ilk növbədə xatirində idi.

Çünki Moskvadan Vətənə qayıdanda, təqiblərdən qurtularaq Naxçıvana sığınanda ilk ziyarət etdiyi yer Cavidin məzarı olmuşdu.

Münasib girəvə yaranan kimi Cavidin muzeyini də yaratdı, Naxçıvanda şahanə məqbərəsini də dikəltdi, yubileylərini də keçirdi, şairin bundan sonrakı bitməz ömrünü təmin edəcək bütün başqa zəruri niyyətləri də gerçəkləşdirdi.

Dahilərə yaraşan qiyməti verə bilmək dahilərin alınına yazılmış keyfiyyətdir.

***

Cavidi qeyri-adi, müstəsna edən cəhətlərdən biri də onun gələcəyi görə bilmək, onillər sonra ölkəsinin və dünyanın həyatında, eləcə də öz taleyində baş verəcəkləri irəlicədən bilmək qabiliyyətidir.

Bunun sıra-sıra təsdiqi Cavidin yadigar şeirlərinin arasındadır. Oxuduqca bunları möcüzə hesab etmək fikrinə düşürsən. Amma bunlar həqiqətlərdir və dahi şairlərin niyə peyğəmbər də adlandırılmasının əyani sübutudur.

Cavid öz kəşməkəşli taleyi müqabilində sabahlar içərisində ona dayaq duracaq Heydər Əliyev kimi bir dövlət öndərini görmüşdü.

"Heydər Əliyev kimi" yazdım və öz yazdığıma tərəddüd etdim. Niyə onun kimi?

Məhz onu görmüşdü.

Çünki…

Cavidin hələ 1920-ci illərdə qələmə aldığı bu sətirlərə dalın və heyrətlənin:

Tutduğun yol böyük… Sən el rəhbərisən,
Bütün səslərdən üstündür sənin səsin.
Bağır, hayqır, can ver issız bucaqlara,
Bilgi nuru yağdır sönmüş ocaqlara.
Zəif biliklərdən çəlik qollar yarat!
Hər uyumuş beyinə bir qığılcım at!
Çalış bütün boşluqlar əzminlə dolsun,
Hər bataqlıq çiçəkli bir cənnət olsun.

Heydər Əliyev dahi mənəvi ustadının bu vəsiyyətinə yüzdə-yüz əməl etdi!

Və ulu öndər özü vaxtın ucalığından seyr edərkən keçmiş içərisində qalsa da, gələcəyinki olan Cavidi belə görürdü. Belə gördüyü üçün də onun ən uzaq sabahlarda da milləti ilə birgə olmasından ötrü bütün bacardıqlarını etdi: "Həyat nə qədər maddi cəhətdən ağır olsa da, mənəviyyat insanı yaşatmağa, mübarizəyə və bu çətinliklərin öhdəsindən gəlməyə yardım edir. Bu mənəviyyat mənbəyi də bizim mədəniyyətimizdədir, bizim tariximizdədir. Bizim ali köklərimizdədir, bizim ədəbiyyatımızdadır, bizim mənəviyyatımızda, mədəniyyət xəzinəmizdədir. Bu xəzinəni bizə bəxş edənlərdən biri və demək olar ki, ən görkəmlisi də Hüseyn Caviddir. Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, bütün türk dünyasının ən görkəmli bir simasıdır, təkrarolunmaz bir şəxsiyyətdir, bir şairdir və yazıçıdır. Onun yaratdığı əsərlər böyük çətinliklərdən keçərək indi artıq hamımız üçün dərslik olubdur və dərslik olmalıdır.

Mən Hüseyn Cavidin yaradıcılığına, onun ədəbi irsinə qiymət vermək fikrində deyiləm. Çünki bunu alimlər, yazıçılar ediblər. Ancaq mən bir siyasət adamı kimi öz fikrimi deyə bilərəm ki, bəli, bizim üçün Hüseyn Cavidin yaratdığı əsərlər daim mədəniyyət, mənəviyyat, əxlaq mənbəyidir. Onun qədər bu barədə XX əsrdə dərin mənalı, yüksək fəlsəfəyə uyğun əsərlər yaradan olmayıb. Və bu əsərlər indi bizim üçün daha da lazımdır. Çünki Azərbaycanın indi müstəqil dövlət kimi, azad bir millət kimi yaşaması, Azərbaycan xalqının inkişaf etməsi üçün biz həmişə Hüseyn Cavidin əsərlərini oxumalıyıq, onun yazdıqlarından bəhrələnməliyik. Orada biz bugünkü həyatımızda baş verən bütün problemlərin cavabını tapa bilərik. Hüseyn Cavid bəşəri bir yazıçıdır. Onun yazdıqları bəşəri xarakter daşıyır. O, bir Azərbaycan çərçivəsinə, yaxud İslam-türk çərçivəsinə yerləşən deyil, dünyəvidir. O, dünya ədəbiyyatını zənginləşdiribdir. Fəqət bizim çatışmazlığımız ondan ibarətdir ki, onu lazımi qədər dünya ictimaiyyətinə, dünya mədəniyyətinə çatdıra bilməmişik.

Hüseyn Cavidin əsərlərini alimlər təhlil edə bilərlər. Şübhəsiz ki, nə qədər təhlil etsələr, o qədər də dərinliyə gedəcəklər. Bəlkə də, böyük dərya kimi heç onun hamısını əhatə edə bilməyəcəklər. Ancaq bununla yanaşı, bizim hamımızın borcu, xüsusən müəllimlərin, məktəblilərin, gənc nəsli tərbiyə edənlərin borcu ondan ibarətdir ki, Hüseyn Cavidin əsərlərini hamıya çatdırsınlar, xüsusən bizim gənclərə. Məktəblərdə Hüseyn Cavidin əsərləri xüsusi yer tutmalıdır. Yenə də deyirəm, çünki onun hər bir əsərində bir dünya var".

***

…Heydər Əliyevi Cavidə bağlayan bir başqa amil də vardı.

Cavidin ilk əsas müəllimi böyük qardaşı Şeyx Məhəmməd olmuşdu.

Şeyx Məhəmməd Heydər Əliyevə də dərs demişdi.

1996-cı ildə Cavid məqbərəsinin açılışı münasibətilə Naxçıvana getmişdik. Unudulmaz öndər bu epizodları mənə o səfər əsnasında nağıl etdi. Söylədi ki, Şeyx Məhəmməd Rasizadə ona 1930-cu illərdə Azərbaycan dili, ədəbiyyat dərsləri deyib, çox savadlı, həm də ifrat dərəcədə tələbkar, ciddi müəllim imiş: "Sonra tale elə gətirdi ki, işimin xüsusiyyətinə uyğun olaraq, illərlə deyil, onillərlə rusca yazıb-pozmağa məcbur qaldım, rusca danışdım, Azərbaycandan kənarlarda işlədim, hətta, bəzən hiss etdim ki, rusca düşünürəm. Amma Şeyx Məhəmmədin verdiyi dərslər beynimizə necə həkk olunmuşdusa, ana dilimizi, onun qayda-qanunlarını bir an belə unutmadım".

***

Bu əhvalatı da mənə unudulmaz Heydər Əliyev danışıb.

Həmin uzaq 1930-cu illərin əvvəllərində səhər dərsə gedəndə yola düşmüş bir kitab görür.

O çağlar nəşr olunmuş kitab, qəzet-jurnal qıtlığıymış. İllah da Naxçıvanda.

Əvvəli və sonu olmayan bu yarıcırıq kitabı maraqla vərəqləyən uşaq birdən arxadan tanış səs eşidir.

Elə onun kimi məktəbə gedən istəkli müəllimi Şeyx Məhəmmədin səsini.

Şeyx Məhəmməd də bu kitabı alıb baxır.

Hansısa yazıçının ruscadan tərcümə edilmiş hekayəsiymiş.

Və təcrübəli müəllim dərhal sevimli şagirdinə tapşırıq verir: "Sabah inşa yazımız var. Bu yarımçıq hekayəni oxu. Əvvəli-axırı yoxdur. Hadisələrin məntiqinə uyğun olaraq başlanğıcını və sonunu inşanda bərpa elə".

Məktəbli Heydər Əliyev ertəsi gün həmin inşanı yazır, əvvəli və sonu olmayan hekayəni məntiqi sapa düzərək tamamlayır, bütövləşdirir və "əla" qiymət alır.

Millətinin və dövlətinin taleyində də natamamları tamamlamaq, yarımçığı bütövləşdirmək, məntiqdən qırağa çıxanları bir sağlam yola düzmək onun həyat meyarı oldu.

Bu Millət və Dövlət İnşasından da qiyməti "ƏLA"dır!

O biri "əla"nı şagird Heydər Əliyevə qırmızı qələmiylə əziz müəllimi, Hüseyn Cavidin böyük qardaşı Şeyx Məhəmməd yazmışdı.

Bu biri "əla"nı Millət Müəllimi Heydər Əliyevə Tarix özü yazdı!

**"Xalq qəzeti".-**2010.-11 dekabr.-N 272.-S.2-3.

## LİDERLİK ZİRVƏSİ

**Mübariz QURBANLI,**
Milli Məclisin deputatı, YAP icra katibinin müavini

**Böyük şəxsiyyətlər yaşayıb yaratdıqları, fəaliyyət göstərdikləri zamanlarda siyasi, iqtisadi və digər prosesləri öz xalqlarının rifahı naminə irəliyə aparmaqla adlarını əbədi olaraq tarixə yazmışlar. Hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır. Azərbaycan xalqı da hər zaman tarixi şəxsiyyətləri ilə fəxr etmişdir.**

Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir.

Ulu öndər Heydər Əliyev tarixi prosesə təsir göstərməyə qadir şəxsiyyət kimi Azərbaycan xalqı və dövlətçiliyi üçün çox böyük və əvəzedilməz işlər görmüşdür. Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir.

Azərbaycan neft ölkəsi olmasına baxmayaraq XX əsrin 60-cı illərində sovetlər ittifaqının geridə qalmış respublikalarından biri idi. Heydər Əliyev məhz belə bir vaxtda – 1969-cu il iyul ayının 14-də Azərbaycanda siyasi hakimiyyətə gəldi. Bundan əvvəl isə Heydər Əliyev Azərbaycanda dövlət təhlükəsizliyi sistemində rəhbər vəzifədə çalışmışdı. Böyük öndər hələ bu orqanda fəaliyyəti dövründə Azərbaycan xalqı üçün əvəzolunmaz işlər görmüşdü. Respublikaya rəhbərliyə gəldikdən sonra isə Heydər Əliyev qısa bir zaman ərzində Azərbaycanın ictimai və siyasi həyatında böyük və əhəmiyyətli dəyişikliklər edə bildi. Ona görə Heydər Əliyev 1982-ci ildə sovetlər ittifaqında ali rəhbər vəzifəyə getdiyi zaman Azərbaycan artıq inkişaf etmiş sənaye respublikası kimi tanınırdı. O illərdə respublikada çoxlu sayda sənaye müəssisələri yaradılmış, Azərbaycanın ittifaq miqyasında əhəmiyyəti artmış, o cümlədən neft sənayesinin ayrı-ayrı sahələri yenidən qurulmuşdu.

Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycanda rəhbər olduğu dövrdə yaratdığı sosial-iqtisadi, siyasi, mənəvi, psixoloji baza sonrakı dövrdə – müstəqillik illərində Azərbaycan xalqı üçün çox böyük əhəmiyyət kəsb etdi. SSRİ-nin dağılması ərəfəsində 15 müttəfiq respublikadan yalnız 3-ü – Rusiya, Ukrayna və Azərbaycan öz daxili imkanları hesabına iqtisadi problemlərini həll etməyə qadir idi. Sovet ittifaqının dağılması ərəfəsində mətbuatda dərc olunan təhlili materiallarda “Hansı müttəfiq respublika sovetlər ittifaqından ayrılaraq iqtisadi cəhətdən yaşamağa qadirdir” – sualına cavab axtarılarkən onların sırasında Azərbaycanın adı birinci yerdə çəkilirdi.

1987-ci ildən başlayaraq sovet rəhbərliyinin himayəsi ilə ermənilər Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağı Ermənistana birləşdirmək üçün ekstremist fəaliyyətə başladılar. O zaman Azərbaycan xalqı ayağa qalxaraq öz suverenliyini və ərazi bütövlüyünü qorumaq üçün kütləvi xalq hərəkatına başladı. Bu hərəkatda ortada olan qüvvələr məhz Heydər Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu dövrdə yaratdığı mühitin yetişdirdiyi insanlar idi. Heydər Əliyev XX əsrin 70-ci illərində Azərbaycanda elə bir ab-hava yaratmışdı ki, bu milli şüurun oyanmasına, Azərbaycan dilinin inkişafına, milli dəyərlərimizin xalq tərəfindən mənimsənilməsinə, tarixi keçmişimizin hərtərəfli öyrənilməsinə şərait yaratmışdı. Bu mühit Azərbaycanda milli ruhlu kadrların yetişməsinə gətirib çıxarmışdı. Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə Azərbaycanda kadr siyasətində azərbaycançılıq prinsipinə ciddi riayət etmiş və bunu məqsədyönlü şəkildə həyata keçirmişdi. Əgər ötən əsrin 50-60-cı illərində Azərbaycanda dövlət idarəçiliyində kadrların böyük əksəriyyəti digər millətlərdən formalaşırdısa, Heydər Əliyevin hakimiyyəti dövründə kadr məsələsində milliləşdirməyə xüsusi diqqət yetirildi. O dövrdə ali təhsil ocaqlarında milli ədəbiyyatımızla, tariximizlə bağlı diskussiyaların aparılması, Azərbaycan tarixinin bütün ali təhsil ocaqlarında tədris proqramına daxil edilməsi Heydər Əliyevin milli məfkurənin inkişafına xidmət edən siyasətinin nəticəsi idi. Moskvadan isə həmişə bu işlərə mane olmağa çalışırdılar. Məqsəd də o idi ki, Azərbaycan xalqı öz tarixini, keçmişini, milli ədəbiyyatını və keçdiyi inkişaf yolunu öyrənə bilməsin. Yəni, milli ruhun inkişafına ittifaq mərkəzi həmişə əngəl olmağa çalışırdı. Lakin Heydər Əliyev bunu tədricən, necə deyərlər, damla-damla həyata keçirməkdə idi. Bir fakta diqqət yetirək. Heydər Əliyevin sovetlər dönəmində Azərbaycanda siyasi hakimiyyətdə olduğu illərdə Azərbaycan Elmlər Akademiyasında mərhum Ziya Bünyadovun rəhbərliyi altında Azərbaycan tarixinə dair dəyərli və sanballı əsərlər yazılmışdı. Həmin əsərlərə qarşı ermənilər cidd-cəhdlə mübarizə aparır, onların nəşr olunmasına mane olmağa çalışırdılar. Ermənilər Moskvada olan bəzi dairələrin köməyi ilə Azərbaycan xalqının öz həqiqi tarixini öyrənməsinə mane olmağa cəhd göstərirdilər.

İkinci bir fakt. Mərhum şairimiz Bəxtiyar Vahabzadənin “Gülüstan” poeması məhz həmin dövrdə nəşr olunmuşdu. Buna da Heydər Əliyevin apardığı siyasət və yaratdığı mühit şərait yaratmışdı. Məhz “Gülüstan” poemasında milliliklə, Azərbaycan xalqının azadlığı və istiqlalı ilə bağlı ideyalar vardı. Həmin dövrdə Bəxtiyar Vahabzadə buna görə hansısa bir cəzaya məruz qalmadı. Çünki bu kimi hadisələrin qarşısını Heydər Əliyev alırdı. Heydər Əliyev ziyalılarımızı, kadrlarımızı qorudu, milli iqtisadiyyatı inkişaf etdirdi. Bütün bunlar sovetlər ittifaqının dağıldığı ərəfədə, milli azadlıq və xalq hərəkatının başladığı dövrdə Azərbaycan xalqının söykəndiyi təməl prinsipləri oldu.

Azərbaycanın dövlət müstəqilliyinin bərpası ərəfəsində gedən prosesdə Heydər Əliyev tarixi şəxsiyyət, lider olaraq Azərbaycan xalqının taleyinə təsir göstərən əhəmiyyətli addımlar atdı. 1990-cı ilin yanvarında sovet qoşunları Bakıya hərbi müdaxilə edərək qanlı hadisələr törətdilər, yüzdən artıq vətəndaşımız qətlə yetirildi. Azərbaycan xalqının öz ərazi bütövlüyünü qorumaq uğrunda apardığı mübarizə qan içərisində boğuldu. Bu haqsızlığa qarşı Azərbaycan xalqı qəti etirazını bildirirdi. Heydər Əliyevin 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlməsi və oradan xalqa səslənməsi, bu faciəni törədənləri kəskin ittiham etməsi tarixi prosesə, tarixi hadisələrə ciddi təsir göstərən addım idi. Məhz bu hadisədən sonra Azərbaycanda xalq hərəkatı milli azadlıq hərəkatına çevrildi. Əgər 1987-ci ildə Azərbaycan xalqı ərazi bütövlüyü və Qarabağın qorunması uğrunda mübarizəyə qalxmışdısa, 1990-cı ilin yanvarından sonra gedən mübarizə artıq müstəqillik, azadlıq, suverenlik, istiqlal uğrunda mübarizə idi. Heydər Əliyevin məhz həmin çıxışı, çağırışı Azərbaycanın siyasi həyatında böyük dəyşiklik məqamı oldu və milli azadlıq, istiqlal uğrunda mübarizə başlandı. Bu mübarizə 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpası ilə yekunlaşdı.

Təəssüf ki, Heydər Əliyevin Azərbaycanda əsasını qoyduğu böyük siyasət və yol istiqlalımızın ilk illərində hakimiyyətə gəlmiş bəzi dairələrin səhvləri nəticəsində ölkəmiz üçün zərərə gətirib çıxardı. İstər ö dövrdə iqtidarda olmuş A.Mütəllibov və onun güruhu, istərsə də onu əvəz etmiş AXC-Müsavat cütlüyünün həyata keçirdiyi siyasət Azərbaycanın, xalqımızın qarşısında duran vəzifələrin həllini ləngitdi. Məhz onların yol verdiyi səhvlər üzündən Ermənistan Azərbaycan üzərində hərbi əməliyyatlarını genişləndirdi və Azərbaycanın bəzi əraziləri işğala məruz qaldı. Lakin xalqımız Heydər Əliyevin gördüyü işləri unutmur və bütün hallarda ölkənin xilas edilməsində böyük şəxsiyyətin həlledici rolunu qiymətləndirirdi. Bunun nəticəsində xalqın çağırışı ilə Heydər Əliyev 1993-cü ildə, ölkəmizdə siyasi böhran yaşandığı, vətəndaş mübarihəsi təhlükəsi yarandığı, Ermənistanın təcavüzünün gücləndiyi bir vaxtda siyasi hakimiyyətə qayıtdı. Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə gəlişindən, yəni 1993-cü ildən sonra ölkəmizdə gedən proseslər geniş bir təhlil, təhqiqat tələb edən bir məsələdir. Aparılan araşdırmalar və təhlillər Heydər Əliyevin nəhəng siyasətinin ayrı-ayrı elementlərini bir daha göz önünə gətirməyi zəruri edir.

1993-cü ilin iyun hadisələri zamanı siyasi hakimiyyətə qayıdan Heydər Əliyev ilk növbədə vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Azərbaycanda ictimai-siyasi sabitliyin yaradılması üçün ciddi və təxirəsalınmaz addımlar atıldı. Hərb cəbhəsində atəşkəsə nail olundu. Bu, Azərbaycan üçün olduqca vacib idi. Çünki hərbi əməliyyatların davam etməsi Azərbaycan iqtisadiyyatının onsuz da ağır olan vəziyyətini daha da ağırlaşdıra bilərdi. Azərbaycan həmin müharibəni yalnız Ermənistanla aparmırdı. Hamıya bəlli idi ki, Ermənistana silah pulsuz verilirdi. Ermənistana müxtəlif vasitələrlə ayrı-ayrı ölkələrdən də yardımlar göstərilirdi. Ermənistan tərəfi Azərbaycan Ordusunun hücumları qarşısında tab gətirməyərək atəşkəsə razılıq vermək məcburiyyətində qaldı. Atəşkəsin əldə edilməsi ilə yaranmış fasilədən ümummilli lider Heydər Əliyev ölkədə dövlət quruculuğu işinin aparılması və ictimai-siyasi sabitliyin bərqərar olması, iqtisadi və maliyyə sabitliyinin yaradılması üçün çox ciddi siyasətin həyata keçirilməsinə başladı. İctimai-siyasi sabitliyin yaradılması üçün Heydər Əliyevin həyata keçirdiyi siyasətin ana xəttini qanunçuluq və möhkəm dövlət intizamının yaradılması təşkil edirdi. Hamıya bəllidir ki, o dövrdə ayrı-ayrı qrupların nəzarətində qanunsuz fəaliyyət göstərən silahlı dəstələr var idi. Bu silahlı dəstələrin, hökumətə, hakimiyyətə tabe olmayan qanunsuz hərbi birləşmələrin mövcudluğu dövlətçilik və müstəqillik, o cümlədən vətəndaşların təhlükəsizliyi üçün qorxu törədirdi. Heydər Əliyevin atdığı ilk əhəmiyyətli addımlardan biri belə silahlı dəstələrin ləğv edilməsi, onlarda olan silahların yığılması oldu.

Ulu öndər Heydər Əliyevin başladığı dövlət quruculuğu siyasətinin tərkibində əsas yerlərdən birini Milli Ordunun yaradılması tuturdu. 1993-cü ilə qədər hakimiyyətdə olan iqtidarların heç biri ordu yarada bilməmişdilər. Heydər Əliyevin qarşıya qoyduğu ən vacib və təxirəsalınmaz vəzifələrdən biri vahid komandanlığa əsaslanan ordunun yaradılması idi. Az zaman içərisində Müdafiə Nazirliyinin tabeçiliyində və dövlətin nəzarətində olan ordu birləşmələri yaradıldı və düşmənin hücumlarının qarşısı alındı.

Heydər Əliyev ictimai-siyasi sabitliyi qorumaq üçün qanunçuluğun yüksək səviyyədə təsbit olunması istiqamətində mühüm addımlar atdı. Ölkədə xaos və özbaşınalığın qarşısı alındı. Xalqın Heydər Əliyevə inamı, etimadı o dərəcədə yüksək idi ki, onun hər bir çağırışı Azərbaycan xalqının bütün təbəqələrində böyük əks-səda

doğururdu. 1994-cü ilin oktyabrında xarici qüvvələrin köməyi ilə bəzi dairələr Azərbaycanda dövlət çevrilişinə cəhd göstərdilər. Keçmiş baş nazir S.Hüseynovun rəhbərliyi ilə dövlət çevrilişinə cəhd edən dairələrin məqsədi ölkəmizin həyata keçirdiyi müstəqil siyasəti əngəlləmək, Azərbaycanı yenidən xarici qüvvələrin, imperiya dairələrinin təsiri altına keçirmək idi. Azərbaycan xalqının Heydər Əliyevə olan inamı hesabına dövlət çevrilişinə cəhdin qarşısı qətiyyətlə alındı.

Dövlət çevrilişinə cəhd təsadüfən baş verməmişdi. O dövrdə Azərbaycan öz təbii sərvətlərini dünyaya çıxarmaq və neft-qaz ixracının köməyilə iqtisadi problemlərini həll etmək üçün addımlar atırdı. Xəzərdə Azərbyacana məxsus neft yataqlarının birgə işlənməsi ilə əlaqədar xarici neft şirkətləri ilə danışıqlar aparılırdı. Bu danışıqları pozmaq istəyən qüvvələr 1994-cü ilin oktyabrında dövlət çevrilişinə cəhd göstərdilər. Qeyd etdiyimiz kimi, Heydər Əliyevin qətiyyəti sayəsində bu cəhdin qarşısı alındı və ictimai-siyasi sabitlik qorundu.

1995-ci ilin martında yenidən dövlət çevrilişinə cəhd olundu. Cavadov qardaşları və onları himayə edən xarici dairələr Azərbaycanda sabitliyi pozmaq və ölkənin həyata keçirdiyi siyasəti əngəlləmək üçün dövlət çevrilişinə cəhd etdilər. Bu cəhdin də qarşısı qətiyyətlə alındı.

Beləliklə, Heydər Əliyevin fədakar zəhməti sayəsində Azərbaycanda silahlı yolla hakimiyyətə gəlmək ənənəsinə birdəfəlik son qoyuldu. Ulu öndərin həyata keçirdiyi siyasət praktik olaraq silahlı çevrilişin Azərbaycan siyasətindən çıxarılmasına gətirib çıxardı. Bu, müasir Azərbaycanın tarixində Heydər Əliyevin adı ilə bağlı olan çox böyük bir nailiyyətdir.

İctimai-siyasi sabitliyin təmin edilməsi iqtisadi islahatların həyata keçirilməsinə yol açdı. Dövlət idarəçiliyi ilə bağlı qanunlar hazırlanaraq təsdiq olundu. Ən başlıcası isə müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul edildi. Azərbaycan xalqı tarix boyu çox dövlətlər qurub. Lakin Azərbaycan xalqının respublika idarə quruluşunun konstitusiyası demək olar ki, olmayıb. 1918-1920-ci illərdə cümhuriyyət mövcud olub. Lakin o dövrdə konstitusiya qəbul olunmadı. Sovetlər dönəmində olan konstitusiya isə müstəqil dövlətin yox, müttəfiq respublikaların konstitusiyası idi.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edildi. Bu Konstitusiyanın müəllifi ulu öndər Heydər Əliyevdir. Azərbaycan xalqının siyasi taleyini, siyasi fəaliyyətini, məqsəd və məramını, iqtisadi və dövlət idarə üsulunu müəyyən edən Konstitusiyanın qəbul edilməsi olduqca əhəmiyyətli hadisədir. Bu Konstitusiya ilə Azərbaycanda hakimiyyət bölgüsü – qanunverici, icra və məhkəmə hakimiyyəti arasında bölgü müəyyənləşdirildi. Konstitusiya ilə təsbit edildi ki, Azərbaycan demokratik, hüquqi və unitar dövlətdir. Konstitusiyada insan hüquq və azadlıqlarına geniş yer verilməsi göstərdi ki, Azərbaycanın yolu demokratiyadır. Bütün bunlar ulu öndərin dövlət quruculuğu sahəsində gördüyü böyük işlərin əsas istiqamətlərindən biridir.

Ulu öndər Heydər Əliyevin ən böyük xidmətlərindən biri də Azərbaycanın öz təbii sərvətlərinə sahib çıxması, dünyanın əsas neft-qaz ixracatçısına çevrilməsidir. Heydər Əliyevin bu istiqamətdə həyata keçirdiyi nəhəng siyasi layihələrdən biri neft strategiyasıdır. Neft strategiyası bu gün də Azərbaycan üçün həm siyasi, həm də iqtisadi dividendlər gətirməkdədir. Ulu öndərin uzaqgörənliyi və qətiyyəti sayəsində 1994-cü il sentyabrın 20-də Bakıda müxtəlif ölkələrin neft şirkətləri ilə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın yeni neft strategiyasının əsasını qoydu. Bu neft strategiyası dünyanın ən qabaqcıl neft şirkətlərini Azərbaycana investisiya yatırmağa cəlb etdi. Bu investisiyalar iqtisadi sabitliyin bərqərar olması üçün böyük rol oynadı. Azərbaycanın beynəlxalq nüfuzu artdı, bölgədə rolu genişləndi. O cümlədən iqtisadi islahatlar aparılması üçün böyük baza yaradıldı, sosial islahatlar üçün iqtisadi potensial əldə edildi.

Heydər Əliyevin həyata keçirdiyi nəhəng geopolitik layihələr sırasında Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi bu gün həm Azərbaycan, həm də region üçün böyük rol oynayır. Bütün iqtisadi təhlilçilərin və tədqiqatçıların fikri ondan ibarətdir ki, belə nəhəng layihənin həssas bir bölgədə, geopolitik baxımdan dartışmalar mərkəzi olan Cənubi Qafqazda həyata keçirilməsi yalnız böyük şəxsiyyətin – Heydər Əliyevin uzaqgörənliyi ilə reallaşa bilərdi.

Enerji təhlükəsizliyi bütün dünya dövlətlərini düşündürən ən vacib məsələlərdən biridir. Ona görə də Azərbaycanın, o cümlədən Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılmasına əngəl olmaq istəyən qüvvələr var idi. Onların maneələrinə baxmayaraq Heydər Əliyev BTC neft kəmərinin, sonra isə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin reallaşması üçün böyük siyasət həyata keçirdi. Bu layihələrin reallaşması Heydər Əliyevin uğuru, onun böyük şəxsiyyət olaraq tarixi prosesə göstərdiyi təsirlərin nəticəsi idi.

Məhz bu səbəbdən Azərbaycanın regionda yeri daha da möhkəmləndi, beynəlxalq təşkilatlarda nüfuzu artdı. Biz bunu Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, İslam Konfransı Təşkilatı və digər beynəlxalq təşkilatlarda görə bilərik. Azərbaycanın artan nüfuzunun nəticəsi idi ki, respublikamız bölgənin lider dövlətinə çevrildi. Eyni zamanda artan nüfuzun nəticəsi idi ki, Ermənistanın

Azərbaycana təcavüzü BMT səviyyəsində, ATƏT çərçivəsində ölkəmizin xeyrinə qərar və qətnamələrin qəbul edilməsi ilə müşayiət olundu.

Ulu öndərin əsasını qoyduğu yeni neft strategiyası bu gün də uğurla davam etdirilir. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən yeni neft strategiyası xalqımızın öz sərvətinə sahib olmasında mühüm rol oynayır. Bu gün BTC və BTƏ Qərblə Şərq arasında körpü rolunu oynayır. Bu layihələr Xəzər regionu ilə Avropa arasında qırılmaz tellərdir, Azərbaycanla Türkiyəni polad kəmərlərlə bir-birinə bağlayıb. Bu bağlılığı hansısa bədxah qüvvələr, çirkin niyyətli dairələr qıra bilməzlər. Bu gün Azərbaycanın razılığı və iştirakı olmadan Qafqazda hansısa bir layihəni həyata keçirmək mümkün deyil. Bu, ulu öndər Heydər Əliyevin başladığı böyük siyasətin davamı və məntiqi nəticəsidir.

Heydər Əliyevin həyata keçirdiyi siyasətin başqa bir istiqaməti iqtisadi tənəzzülün qarşısının alınmasıdır. 1995-1996-cı illərdən başlayaraq iqtisadi böhran aradan qaldırıldı, Azərbaycan inkişaf yoluna qədəm qoydu. İqtisadi islahatların bəhrəsi xalqın rifahına da müsbət təsir göstərməyə başladı. Qısa zaman kəsiyində Azərbaycan iqtisadi baxımdan Qafqazın ən qabaqcıl ölkəsi oldu.

Azərbaycan dövlətçiliyində Heydər Əliyevin adı ilə bağlı olan əsas məqamlardan biri təməl prinsipləridir. Müstəqil Azərbaycan dövlətinin təməl prinsiplərinin müəllifi Heydər Əliyevdir. Bu təməl prinsipləri yalnız bu gün üçün deyil, eyni zamanda gələcəyə yönəlib. Hər bir xalq öz dövlətçiliyinin idarə olunmasında müəyyən ideoloji prinsiplərə söykənir. İdeologiyasız dövlətçilik mümkün deyil. Xalq ideologiyaya söykənmədən irəli gedə bilməz. Dünyanın aparıcı dövlətlərinin keçdiyi tarixi inkişaf yoluna nəzər salsaq onların müəyyən prinsiplərə söykəndiyini görərik.

Heydər Əliyev Azərbaycan dövlətinin ideoloji cəhətdən altı təməl prinsipini müəyyənləşdirib. Bunlardan birincisi müstəqil dövlətçilik prinsipidir. Müstəqil dövlətçilik prinsipinin qayəsini Azərbaycanın müstəqilliyinin hər şeydən uca olması, suverenliyinin qorunması üçün bütün vasitələrdən istifadə olunmasının zəruriliyi ideyası təşkil edir. Müstəqil dövlətçilik prinsipi hər şey dövlət naminə şüarına söykənir. Azərbaycanda müstəqil dövlətin qurulması yolunda Heydər Əliyevin hələ sovetlər dönəmindən başladığı işlər nəticə etibarilə bu prinsipin reallaşması ilə başa çatdı. Heydər Əliyevin sayəsində Azərbaycanın müstəqilliyinin dönməzliyi tam təmin olundu.

Qanunçuluq prinsipi. Qanun alidir və hər kəs ona tabe olmalıdır. Tutduğu mövqedən, cəmiyyətdəki fəaliyyətindən asılı olmayaraq bütün vətəndaşlar qanuna əməl etməlidirlər. Bu baxımdan qanunçuluq Heydər Əliyevin Azərbaycan dövlətçiliyi üçün müəyyən etdiyi əsas prinsiplərdən biridir.

Azərbaycançılıq prinsipi. Bu prinsip bütövlükdə Heydər Əliyev ideologiyasının ana xəttini təşkil edir. Azərbaycançılıq dünyada olan azərbaycanlıların vahid bir ideya ətrafında birləşməsini, eyni zamanda Azərbaycanda yaşayan hər bir vətəndaşın dövlətə, xalqa bağlılığını zəruri edir. Azərbaycançılıq dünyada olan azərbaycanlıları müstəqil Azərbaycan uğrunda mübarizədə səfərbər edir.

Varislik prinsipi. Burada söhbət siyasətin varisliyindən gedir. Heydər Əliyev böyük siyasət müəyyənləşdirib. Bu yol davamlı olmalıdır.

Konstruktiv əməkdaşlıq prinsipi. Bu prinsip vətəndaş həmrəyliyini özündə əks etdirir. Vətəndaş həmrəyliyi dünən də lazım idi, bu gün də lazımdır, sabah da lazım olacaq. Çünki istənilən cəmiyyətdə iqtidar-müxalifət mübarizəsi, bu və ya digər məsələdə fikir ayrılığı ola bilər. Bu mübarizə konstruktiv şəkildə, qanun çərçivəsində getməlidir. Bu mübarizə eyni zamanda vətəndaş həmrəyliyində özünü büruzə verməlidir. Bir-birinə əks ideyalar ortaya qoyan qüvvələr nəticə etibarilə ölkəmizin maraqları naminə birləşməli, vətəndaş sülhünü, həmrəyliyini qorumalıdırlar.

Bu prinsip daim Heydər Əliyev tərəfindən qorunub. Heydər Əliyevin yaratdığı, qurucusu olduğu Yeni Azərbaycan Partiyası 1992-ci ildən siyasi arenadadır. YAP müxalifətdə olduğu dövrdə də konstruktivlik nümayişi etdirmiş, vətəndaş sülhünə və həmrəyliyinə əməl etmişdir. Heydər Əliyevin müəyyən etdiyi bu siyasət YAP-ın fəaliyyətində həmişə özünü büruzə verib.

Sosial ədalət prinsipi. Heydər Əliyev siyasətində sosial ədalət önəmli yer tutur. Sosial ədalət olmayan cəmiyyətlərdə insanlar arasında hansısa bir sülhdən, əməkdaşlıqdan söhbət gedə bilməz. Cəmiyyətdə bazar münasibətlərinin inkişafı sosial ədaləti inkar etmir. Dövlətin sosial müdafiə siyasəti həmişə qorunub saxlanılmalıdır. Sosial ədalət vətəndaşın daim dövlətin himayəsində olması deməkdir.

Bu prinsiplər Prezident İlham Əliyevin fəaliyyətində yaxından hiss olunmaqdadır. Biz ulu öndər Heydər Əliyevi yad edərkən, xatirəsini anarkən onun xalqımıza ərmağan etdiyi müstəqil Azərbaycanı qorumağı qarşımızda bir vəzifə olaraq görürük. Bu gün Azərbaycan xalqının bütün təbəqələri üçün Heydər Əliyev ümummilli liderdir. Cəmiyyətimizin inkişafı ulu öndərin ideyalarına söykənir. Heydər Əliyev yolu ilə, Heydər Əliyev ideyaları ilə Azərbaycan daim böyük uğurlar əldə edəcək və böyük zirvələri fəth edəcəkdir.

“**Azərbaycan**“.-2010.-12 dekabr.-N 273.-S.1-2.

# HEYDƏR ƏLİYEV İDEYALARININ DAVAMI VƏ ÖLMƏZLİK

**Səlahəddin XƏLİLOV,**
AMEA-nın müxbir üzvü

**Ümummilli lider Heydər Əliyev sözün hər mənasında böyük ömür yaşadı. Lakin onun ideyalarının ömrü, qurduqlarının və yaratdıqlarının ömrü daha böyükdür. Heydər Əliyev ideyalarının və əməllərinin yaşamasına heç kim şübhə etməsə də, xalq onun adının ancaq tarixdə qalması və keçmiş zamanda işlənməsi ilə heç cür razılaşa bilmir. Təsadüfi deyil ki, onun adının əbədiləşdirilməsi bu gün də davam etməkdədir. İndi Azərbaycanın bütün bölgələrində, guşələrində, müəssisə və təşkilatlarda bu məqsədə xidmət edən müxtəlif tədbirlər həyata keçirilir. Heydər Əliyevə abidələr ucaldılması, şəhərlərə, kənd və qəsəbələrə, küçə və xiyabanlara, müəssisə və təşkilatlara onun adının verilməsi ilə bağlı çoxsaylı məlumatlar alırıq.**

Lakin ulu öndər Heydər Əliyev ideyalarının həmişəyaşar olmasını təmin edən ən mühüm hadisələr sırasında onun nəzəri-ideoloji irsinin öyrənilməsi, ideyalarının tədqiqi və təbliği ilə bağlı ictimai təşkilatların və elmi-tədqiqat müəssisələrinin fəaliyyəti, Heydər Əliyev Fondunun beynəlxalq miqyasda həyata keçirdiyi tədbirlər, bu məqsədə xidmət edən araşdırma və tədris mərkəzləri, universitetlər, akademiyalar və s. xüsusi yer tutur. Heydər Əliyev Fondunun çoxsahəli fəaliyyəti onun ideyalarını təkcə sözdə yox, həm də işdə yaşatmağın bariz nümunəsidir. Fərəhlə qeyd edilməlidir ki, təhsilin maddi-texniki bazasını gücləndirmək və yeni məktəb binaları tikmək haqqında Heydər Əliyevin imzaladığı son sərəncamlardan biri fond tərəfindən əzmlə yerinə yetirilməkdədir.

Heydər Əliyev irsinin qorunması və yayılması, onun ideyalarının təbliği istiqamətində həyata keçirilən çoxçeşidli tədbirlər obyektiv əsaslara malikdir və onların reallaşdırılması heç də təkcə Heydər Əliyev şəxsiyyətinə münasibətlə bağlı deyil. Bu tədbirlər gənc nəslin dövlətçilik duyğularının inkişaf etdirilməsi baxımından da çox önəmlidir. Əsasən şair kultunun geniş yayıldığı bir ölkədə böyük dövlət xadimlərinə sevgi ənənəsi həm də milli mentalitetdə birtərəfliliyin aradan qaldırılmasına xidmət edə bilər. Bu baxımdan, Heydər Əliyev şəxsiyyətinin, onun həyat və fəaliyyətinin işıqlandırılması, onun ideyalarının ictimai şüurun strukturuna daxil edilməsi olduqca böyük əhəmiyyətə malikdir. Təsadüfü deyildir ki, bütün həyatı ilə dövlətçiliyə xidmət edən Heydər Əliyevin beynəlxalq rezonans alan təntənəli dəfn mərasimi də, xatirəsinin əbədiləşdirilməsi üçün görülən işlər də dövlətçiliyə, onun daha da möhkəmləndirilməsinə xidmət etmiş oldu.

Bu gün biz tam əsasla deyə bilərik ki, Heydər Əliyevin ölməzliyi artıq təmin olunmuş, isbata yetirilmişdir. Onun ideyaları indi də fəaliyyətdədir. Ölkəmizdəki bütün quruculuq işləri məhz bu ideyaların həyata keçirilməsi istiqamətində gedir. Bütün Azərbaycan xalqı Heydər Əliyevin qəlblərdə, işlərdə, əməllərdə yaşaması və əbədiyyətə qovuşması üçün əlindən gələni edir. Lakin Heydər Əliyev əbədiyyəti hələ sağlığında qazanmışdı. Onun ölməzliyi fəaliyyətinin ideya təməlindədir.

Böyük dövlət xadimi Heydər Əliyev sadəcə fəhmə və təcrübəyə əsaslanmamış, bir sıra fundamental məsələlərlə bağlı fəaliyyətin metodologiyasını da işləyib hazırlamışdır. Məsələn, demokratikləşdirmə və təşkilatlanma proseslərinin nisbətində tarazlığın vacibliyi prinsipini irəli sürmüş və Azərbaycanda dövlət quruculuğu prosesində bu tarazlığın pozulmasına heç vaxt yol verməmişdir. Azərbaycanda dövlət müstəqilliyini və onun qorunub-saxlanmasını hər hansı bir dəyərdən yüksək tutan Heydər Əliyev demokratikləşməni də bu ali məqsəd çərçivəsində, onun təminatlarından biri kimi qəbul edirdi. Azərbaycanın müstəqilliyi Heydər Əliyevin bütün fəaliyyətinin və çıxışlarının ana xətti idi.

Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini artıq təmin olunmuş, dönməz proses kimi qiymətləndirirdi. Lakin buna belə əminliklə qarantiya vermək üçün nə kimi tədbirlər görülmüşdü? Son dövrlərin tarixi göstərir ki, bu məqsədlə onun rəhbərliyi ilə dövlət quruculuğunun bütün istiqamətlərində ardıcıl və məqsədyönlü fəaliyyət aparılmış, bunun da mərkəzində dövlət təhlükəsizlik sisteminin yaradılması durmuşdur. Dövlət təhlükəsizliyi geniş mənada başa düşüldükdə heç də xüsusi xidmət sahəsi olmayıb, bütün fəaliyyət sahələrində milli maraqlara söykənən müstəqil dövlət siyasətinin həyata keçirilməsinə təminatdır.

Əlbəttə, dövlət təhlükəsizlik sisteminin yaradılmasında əsas istiqamətlərdən biri ordu quruculuğudur. Heydər Əliyev bu sahəyə həmişə böyük önəm vermişdir: “Silahlı qüvvələrin yaradılması Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini təsdiq edən, onu nümayiş etdirən amillərdən biridir”, “Azərbaycan Respublikasının milli ordusu respublikamızın milli təhlükəsizliyini, əhalimizin əmin-amanlığını və mühafizəsini təmin etmək” üçündür. Lakin milli təhlükəsizlik təkcə ordu və polislə təmin edilə bilməz. Heydər Əliyev dövlət

müstəqilliyinin qorunmasını siyasi, iqtisadi və mədəni-mənəvi istiqamətlərdəki fəaliyyətlərin də başlıca məqsədi hesab edirdi.

Milli iqtisadiyyatımızın möhkəmləndirilməsi, onun müasir şəraitdə labüd olan azad rəqabət və bazar münasibətləri əsasında yenidən qurulması prosesi ilk dövrlərdə ağrılı keçsə də, artıq öz bəhrələrini vermək üzrədir. İqtisadiyyatın inkişaf yolu düzgün seçildikdə, iqtisadi münasibətlər sisteminin xarakteri düzgün müəyyənləşdirildikdə iqtisadi təhlükəsizlik üçün də təminat yaranmış olur. Bir şərtlə ki, xarici ölkələrlə iqtisadi münasibətlər yaradılarkən, cari və perspektiv milli maraqlar nəzərə alınmış olsun. Bəli, biz milli-iqtisadi potensialdan daha səmərəli istifadə etmək üçün Azərbaycan iqtisadiyyatına xarici sərmayələrin qoyulmasından imtina etmirik, əksinə, müasir şəraitdə buna üstünlük veririk: “Bizim iqtisadi siyasətimiz məlumdur və o, Azərbaycanda bazar iqtisadiyyatı yolu ilə getmək və bu yol ilə Azərbaycan iqtisadiyyatın dünya iqtisadiyyatına sıx surətdə bağlamaq məqsədi daşıyır”. Lakin, bütün bu əlaqələr zamanı heç vaxt unudulmur ki, “bizim bütün təbii sərvətlərimiz xalqa məxsusdur”. Ulu öndər göstərirdi ki, bu sərvətlər “Azərbaycanın tam sərbəst, heç bir dövlətdən asılı olmayaraq yaşamasına imkan verir. Güman edirəm ki, biz müstəqilliyimizi tam bərqərar etdikdən və qarşıda duran vəzifələri həyata keçirdikdən sonra ölkəmizin bu iqtisadi potensialının bəhrələrini Azərbaycanın hər bir vətəndaşı görəcək və bunun sayəsində şən, firavan yaşayacaqdır”.

Milli-iqtisadi təhlükəsizlik təkcə xarici iqtisadi əlaqələrdə milli maraqların nəzərə alınması ilə məhdudlaşmır. Daxildə iqtisadi islahatların sosial yönümə üstünlük verməklə aparılması, şəxsi maraqlarla dövlət maraqlarının uzlaşdırılması da mühüm şərtdir. Burada biz zahirən paradoksal görünə biləcək bir cəhətlə qarşılaşırıq. Dövlət təhlükəsizlik sistemi ilk baxışda fərdlərin yox, məhz dövlətin iqtisadi maraqlarından çıxış etməyi nəzərdə tutur. Lakin Heydər Əliyevin həyata keçirdiyi siyasət “xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır” prinsipinə əsaslanır. Dövlət müstəqilliyinin dönməzliyi də məhz o zaman təmin edilmiş olur ki, dövlətin maraqları ümummilli maraqlarla üst-üstə düşmüş olsun.

Heydər Əliyevin irəli sürdüyü və bir konsepsiya halına saldığı ideyalardan biri məhz “müstəqillik” anlayışı ilə bağlıdır. Bu konsepsiyaya görə, müstəqillik heç də bəzilərinin başa düşdüyü kimi, ancaq siyasi müstəqillikdən, sərhədlərin toxunulmazlığından ibarət deyil. Bura həm də iqtisadi müstəqillik, milli maraqlara xidmət etmək müstəqilliyi daxildir. Elə ölkələr vardır ki, hüquqi və siyasi baxımdan suverenliyi elan olunsa da, real müstəqillikdən uzaqdır. Buna çox misallar gətirmək olar. Amma ən yaxın olan digər

MDB ölkələridir, Gürcüstandır, Ermənistandır, Tacikistandır və s.

Bir qarış belə torpağını itirməmiş, əksinə, qonşu dövlətin ərazisini də zəbt etmiş Ermənistan sözün həqiqi mənasında müstəqillik əldə edə bilməmişdir. Ərazisində başqa bir dövlətin qoşunları yerləşdirilmiş, sərhədləri başqalarının nəzarəti altında olan Ermənistan hələ də Moskvanın siyasi təsirindən xilas ola bilməmişdir və öz milli maraqlarına uyğun addımlar atmaq imkanından məhrumdur. Elə Azərbaycanla müharibə vəziyyəti də onun milli iqtisadi maraqlarına ziddir. Bu ölkə iqtisadi cəhətdən özünü dolandırmaq iqtidarında olmayıb, xarici yardımlardan asılı vəziyyətdədir. Məhz hərbi bazaya və siyasi alətə çevrildiyi və təhlükəsizliyə təminat verə bilmədiyindən İpək Yolunun bərpası, iri miqyaslı neft-qaz kəmərlərinin çəkilişi və s. bu kimi beynəlxalq layihələrdə də iştirak edə bilmir.

Belə misallar çox göstərmək olar. Ancaq əsas məsələ budur ki, Azərbaycan qısa bir zamanda siyasi müstəqilliklə yanaşı, həm iqtisadi, həm də mədəni-mənəvi müstəqillik əldə etmiş və bu istiqamətdəki proseslərin dönməzliyini də təmin edə bilmişdir. Lakin bu məqsədə aparan yol heç də asan olmamışdır. Bunun üçün o dövrün xüsusiyyətlərindən irəli gələn bütün təfərrüatlar ölçülüb-biçilməli və mümkün olan ən düzgün qərarlar qəbul edilməli idi.

Təsadüfü deyildir ki, Heydər Əliyevin ideyaları həmişə konkret ictimai-siyasi şəraitlə sıx surətdə bağlı olmuşdur. Onun Azərbaycanda dövlət quruculuğuna başladığı şərait isə qısaca desək “keçid dövrü” kimi səciyyələndirilə bilər. O vaxt Azərbaycan eyni vaxtda dörd istiqamətdə keçid dövrünü yaşayırdı:

**Birincisi,** böyük imperiyadan ayrıldıqdan sonra nisbi müstəqil dövlətçilikdən tam müstəqil dövlətçiliyə keçid – müstəqilləşmə və bərabərhüquqlu tərəf kimi dövlətlərarası münasibətlər sisteminə daxil olma prosesi;

**İkincisi**, bir ictimai-iqtisadi sistemdən yeni ictimai-iqtisadi sistemə, dövlət mülkiyyətindən xüsusi mülkiyyətə, sosialist iqtisadi münasibətlərindən bazar iqtisadiyyatına keçid;

**Üçüncüsü**, milli və dini dəyərlərə qayıdış prosesi, kommunist ideologiyasından və kosmopolit mənəviyyatdan milli mənəviyyata, ateist dünyagörüşündən həqiqi vicdan azadlığına keçid;

**Dördüncüsü**, bir siyasi rejimdən yeni siyasi rejimə, totalitar cəmiyyətdən demokratik cəmiyyətə, senzuradan söz azadlığına, vahid partiya və ideologiyadan çoxpartiyalılığa, plüralizmə keçid.

Belə bir mürəkkəb şəraitdə düzgün yol seçmək, həqiqətən, çətin idi. Cəmiyyətin özü yeni quruluşa, həqiqi demokratik proseslərə hazır deyildi. Demokratikləşmə isə, əslində, müstəqillik yolunun ən mühüm

atributlarından biri idi. Çünki zəmanə özü bunu tələb edirdi. Müstəqilliyin yolu ümumbəşəri dəyərlərə qovuşmaqdan, siyasi plüralizmdən, söz və fikir azadlığından, demokratikləşmədən keçirdi. Milli-mənəvi dəyərlərin taleyi də xeyli dərəcədə onların bu ümumbəşəri dəyərlərə, müasir dövlətçilik tələblərinə uyğunlaşa bilmək şansından asılı idi.

O dövrdə milli istiqlaliyyət, imperiya buxovlarından azad olmaq, milli köklərə qayıtmaq istiqamətindəki fəaliyyət üçün daha böyük potensıal var idi və bu istiqamətdə daha böyük əzm nümayiş etdirilirdi. Çünki hələ sovet dövründə də əsasən əxlaq, adət-ənənə, dini şüur, bədii ədəbiyyat və incəsənət vasitəsilə xalqın milli özünəməxsusluğu qorunub saxlanırdı. Milli ruh hələ yaşayırdı.

Siyasi və ideoloji müstəvidəki buxovlar aradan götürüldükdən sonra milli-mənəvi dəyərlərin milli-siyasi təşkilatlanma prosesi ilə vəhdəti üçün real zəmin yarandı. Düzdür, burada da çətinliklər var idi. Əhalinin bir qisminin, xüsusən, “rusdilli” əhaliyə aid olanların milli mədəniyyətə bələdliyi, milli köklərlə bağlılığı çox aşağı səviyyədə olduğundan və onların həyat tərzi və hətta şəxsi, ictimai əlaqələri də daha çox Rusiya ilə bağlı olduğundan milliləşmə prosesinə bir müqavimət var idi. Digər tərəfdən Moskva ilə iqtisadi və sosial-mədəni əlaqələrin hələ də saxlanması və ya saxlanmasına zərurət imperiyapərəst qüvvələrin, Kremlin sadiq nökərlərinin mövqeyini möhkəmləndirirdi.

Yeni iqtisadi münasibətlərə keçid də müəyyən çətinliklərlə üzləşmişdi. Neçə onilliklər ərzində insanların şüuru elə formalaşmışdır ki, dövlət mülkiyyətindən kənarda hər hansı bir mülkiyyət formasının mövcudluğuna heç cür uyğunlaşa bilmirdi. Burjuaziyaya və bütövlükdə varlı adamlara qarşı nifrət hissi ictimai şüurda özünə möhkəm yer etmişdi. Ona görə də iş adamlarının hər hansı nailiyyəti çox vaxt nəinki təkcə əhali tərəfindən, hətta dövlət orqanlarında çalışan yüksəkrütbəli məmurlar tərəfindən pis qarşılanırdı ki, bu da azad iqtisadi rəqabətin inkişafına əngəl törədirdi.

Bununla bərabər, bazar iqtisadiyyatına keçid üçün, heç olmazsa, müəyyən ənənəvi zəmin var idi. Sovet dövründə “gizli iqtisadiyyat”ın və dövlət mülkiyyətinin bətnində öz fərdi mülkiyyətini və şəxsi maraqlarını güdməyə öyrəşmiş işbaz adamların mövcudluğu, bazarlarda peşəkar alverçilərin fəaliyyəti, ümumiyyətlə, alver psixologiyasının mövcudluğu xüsusi istehsal müəssisələrinin yaradılması və biznes üçün müəyyən mənada zəmin sayıla bilərdi.

Lakin ən böyük çətinliklər demokratik cəmiyyət quruculuğuna, yeni idarəçilik sisteminə adekvat düşüncə tərzinin hələ formalaşmaması, ictimai şüurun iqtisadi bazislə müqayisədə çox aşağı səviyyədə olması ilə bağlı idi. Hələ şüurlar dəyişməmiş azadlıq dərəcəsinin artması anarxiya meylləri ilə nəticələnə bilərdi və həqiqətən, belə oldu. Azadlıqdan sui-istifadə meylləri geniş miqyas aldı. Vətəndaş cəmiyyəti əvəzinə, vətəndaş itaətsizliyi və çoxhakimiyyətlilik formalaşdı.

Azərbaycan SSR SSRİ-dən ayrılaraq müstəqilliyə qədəm qoyduqda onun qarşısında çox ciddi bir alternativ dururdu. Elə bil ki, ölkəmiz bir-birinə əks olan iki qütbdən birini seçməli idi: birincisi, sistemin dağılmasına baxmayaraq, yenə də mərkəzdən ikiəlli yapışıb ondan nicat gözləmək, hər hansı müstəqil addım atmaqdan çəkinmək, köhnə buxovları saxlamaq təşəbbüsü; ikincisi, keçmişdən qalan hər nə varsa, onda imperiya nişanəsi görmək, hər şeyi dağıdaraq sıfırdan başlamaq təşəbbüsü. Nə qədər təəssüflənməli olsaq da, Azərbaycan ilk dövlətçilik illərində bu ifrat birtərəfli meyllərin hər ikisini “sınaqdan keçirməli” olmuşdur.

Azərbaycanın müstəqil bir ölkə kimi ayağa qalxmasına, özünü dərk etməsinə, özünəməxsus inkişaf modeli hazırlayıb həyata keçirməsinə mane olan, iqtisadi, mədəni-mənəvi həyatın müstəqillik şəraitində öz məcrasına düşməsini ləngidən səbəblərdən biri müharibə idisə, digəri cəmiyyətdəki bu qütbləşmə, hər iki qütbü təmsil edən qüvvələrin hakimiyyət iddiaları idi. Bu iddialar müstəqilliyin ilk illərində ölkəmizə böyük ziyanlar vurdu. O vaxt rəhbərlikdə olan qüvvələrlə xalq hərəkatını təmsil edən, milli qeyrət və vətəndaşlıq mövqeyində olan qüvvələr qarşı-qarşıya dururdu. Birincilərdə vətəndaşlıq mövqeyi, ikincilərdə dövlətçilik təcrübəsi çatışmırdı. Həm böyük dünyagörüşü, rəhbərlik təcrübəsi olan, həm də xalqın həqiqi milli mənafeyini müdafiə etmək əzmində olan yeganə sinkretik qüvvə nə iqtidar, nə də müxalifət tərəfindən yaxına buraxılmırdı.

Xoşbəxtlikdən, bu taleyüklü yolayrıcında, son məqamda xalq öz sözünü deyə bildi. O vaxt ölkəmizdə keçmiş SSRİ-nin dövlət quruculuğu təcrübəsinə hamıdan yaxşı bələd olan, onun üstünlüklərini və çatışmazlıqlarını ən yüksək pillədən görmüş və eyni zamanda, Azərbaycanın milli və regional spesifikasını, potensial imkanlarını və onların realizə yollarını hamıdan yaxşı bilən bir adamın rəhbərlik etməsi keçid dövrünün əsasən uğurla başa vurulmasına şərait yaratdı.

İndi İlham Əliyev müstəqil dövlətçilik tariximizin yeni mərhələsində Azərbaycanı məhz Heydər Əliyev ideyaları əsasında idarə etməklə, həm də bu ideyaları müasir dövrün tələblərinə uyğun surətdə inkişaf etdirir.

Ümumiyyətlə, müstəqilliyin taleyi üç əsas amildən asılıdır: dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadiyyatın dirçəldilməsi, mədəni-mənəvi dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsi. Bu amillərin üçü də əsasdır. Lakin onları necə sıraya düzməkdən, onların yerini və rolunu düzgün qiymətləndirməkdən çox

şey asılıdır. Bu amillərdən hansının məqsəd, hansının vasitə, hansının təməl olduğunu aydınlaşdırmadan düzgün strateji fəaliyyət proqramı müəyyənləşdirmək mümkün deyil. Əgər Heydər Əliyevin çıxışları və əsərləri ilə diqqətlə tanış olsaq, görərik ki, onun ən böyük nailiyyət saydığı Azərbaycanın müstəqilliyi, ən çox vurğuladığı və diqqət verdiyi vəzifə isə müstəqilliyin dönməzliyinin təmin edilməsi idi.

Lakin dövlət quruculuğu Heydər Əliyevin fəaliyyət strategiyasında özlüyündə son məqsəd deyildi. Dövlətin möhkəmləndirilməsi ona görə bir nömrəli vəzifədir ki, o bizim müstəqil iqtisadi siyasətimizin və milli mənəviyyatımızın təminatçısı, qarantı ola bilsin: “Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz”. İqtisadiyyatın inkişafı, adamların rifah halının yaxşılaşdırılması həmişə Heydər Əliyevin diqqət mərkəzində olmuşdur: “Biz həm ölkəmizin suverenliyini, ərazi bütövlüyünü qorumaq üçün çalışırıq, həm də vətəndaşlarımızın, xalqımızın rifahını yaxşılaşdırmağa, yaranmış vəziyyətdə müxtəlif və yeni formalardan istifadə” edərək iqtisadiyyatı inkişaf etdirməyə çalışırıq”.

Heydər Əliyev fikrini bununla bitirmir və məsələyə tam dialektik bir mövqedən yanaşmaqla, sosial-iqtisadi proqramların həyata keçirilməsinin də öz növbəsində, dövlətçiliyin möhkəmləndirilməsi, ictimai-siyasi sabitliyin bərqərar olması, mədəni-mənəvi həyatın təşəkkülü üçün bir şərt olduğunu qeyd edirdi. İqtisadiyyat son məqsəd kimi yox, şərt kimi, təməl kimi, vasitə kimi götürülürdü. Siyasi və mədəni-mənəvi aspektdəki nailiyyətlərin də çox vaxt iqtisadi təmələ söykəndiyi vurğulanırdı: “İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. ”

Bəli, iqtisadiyyatın inkişafı da dövlətin möhkəmləndirilməsi kimi olduqca vacib şərtdir. Lakin nə iqtisadiyyat, adamların güzəranı, rifah halı, nə də dövlət quruculuğu müstəqillik yolunun son məqsədi, mənzil başı ola bilməz. Əgər xalq dövlət qurur, iqtisadiyyatı inkişaf etdirir, sərhədləri möhkəmləndirirsə və bu sərhədlər daxilində özünə yad bir mənəviyyat saxlayırsa, bu hələ müstəqillik deyil. Mənəvi buxovlardan azad olmayan, öz milli mənliyini dərk etməyən xalq azad xalq sayıla bilməz.

Ulu öndər Heydər Əliyevin əsərlərini oxuyub dərindən təhlil edərkən bir daha əmin olursan ki, müstəqilliyin ali məqsədi milli-mədəni və mənəvi dəyərlərin bərpa olunması, xalqın özünü dərk etməsi, öz mənliyinin sahibi olmasıdır.

Mənəviyyatın qorunması üçün ən mühüm şərtlərdən biri iqtisadiyyatın inkişaf etdirilməsidir. İqtisadi tərəqqini təmin etmək üçün isə dövlətçiliyin möhkəmləndirilməsi lazımdır. Möhkəm dövlətçilik təməli isə ancaq ictimai-iqtisadi sabitlik şəraitində, beynəlxalq nüfuzun yüksəldilməsi və beynəlxalq ictimai-iqtisadi əlaqələr sisteminə daxil olmaq sayəsində mümkündür. Heydər Əliyev nədən başlayıb nəyə doğru getmək lazım olduğunu çox gözəl bilirdi. Onun bu biliklərinə indi də böyük ehtiyac vardır.

Bu gün müstəqil Azərbaycanın dövlət quruculuğu sahəsində zəruri olan ilk addımlar artıq atılmışdır. Azərbaycanda ictimai-siyasi sabitlik əldə edilmişdir, əmin-amanlıq atmosferi hökm sürür, əhalinin fiziki və mənəvi toxunulmazlığı təmin edilmişdir. İqtisadi baxımdan dövlət mülkiyyətinə və planlı təsərrüfata əsaslanan sosialist ictimai-iqtisadi münasibətlərindən daha çox dərəcədə xüsusi mülkiyyətə və azad rəqabətə əsaslanan bazar iqtisadiyyatına keçid prosesi tamamlanmışdır. Bütün bu uğurların qazanılmasında Heydər Əliyev ideyalarının və bu gün ölkəmizdə uğurla həyata keçirilən siyasi kursun möhkəm təməllərə əsaslanmasının böyük əhəmiyyəti vardır.

Ümummilli lider Heydər Əliyevin yeni tariximizdə xidmətləri çoxdur, qazandığı uğurları, qələbələri saymaqla qurtarmaq olmur. Bu gün biz onun daha bir xidmətindən, ölüm üzərindəki qələbəsindən, ölməzliyindən danışırıq. E.Renanın dediyi kimi, ölməzlik əbədi bir işi həyata keçirməkdən ibarətdir. Milli dəyərləri siyasi dəyərlərlə ortaq məxrəcə gətirmək, onları kobud dövlətçilik meyarları əsasında birləşdirmək və bununla da dövlət müstəqilliyimizin dönməzliyini, əbədiliyini təmin etmək sayəsində Heydər Əliyev, əslində, öz şəxsi ölməzliyinə, əbədiyyətinə də imza atmışdır. Zaman keçdikcə, Heydər Əliyevin artıq gerçəkləşmiş olan bu qələbəsini də daha aydın və daha dərindən mənimsəyirik.

Heydər Əliyevin həyat və fəaliyyəti xalqın siyasi varlığı ilə, dövlətlə, dövlətçiliklə o dərəcədə sıx surətdə bağlı idi ki, onun ideyaları ictimai-iqtisadi həyatın, dövlət quruculuğunun bütün sahələrinə dərindən nüfuz etmişdi. Siyasi liderlik milli liderlik keyfiyyətlərinin bir şəxsdə birləşməsi bəşər tarixində çox nadir hallarda rast gələn haldır. Heydər Əliyev bu iki keyfiyyəti ehtiva etməklə bərabər, fəaliyyət göstərdiyi bütün digər sahələrdə də özünü məhz birinci şəxs kimi, lider kimi təsdiq etmişdir.

Həm böyük rəhbər, komandan, siyasət qrossmeysteri, həm böyük natiq, filosof, ideoloji lider, həm də iqtisadi və mədəni-mənəvi quruculuq sahələrində əvəzsiz iz qoymuş bu dahi şəxsiyyətin ideyaları da tarixin yaddaşına həmişəlik həkk olunmuşdur. Hikmətli fikirləri hələ sağlığındaykən dillərdə əzbər olmuş, böyük filosofların aforizmləri ilə bir sırada yer tutmuş, bir çox xarici dillərdə nəşr olunmuşdur. Heydər Əliyevin həm nəzəri, həm də praktik ideyaları bu gün də aktuallığını itirməmiş və bir sıra əməli fəaliyyət sahələrində tətbiq

olunmaqdadır. Onun bir siyasi rəhbər və lider kimi oynadığı misilsiz rol hamıya məlumdur. Lakin bu gün onun yeri bir fikir sahibi kimi də görünməkdədir.

Böyük şəxsiyyətlər ictimai-siyasi arenadan çəkildikdə, adətən, böyük boşluq yaranır və cəmiyyət uzun müddət özünə gələ bilmir. 1982-ci ildə Heydər Əliyev Siyasi Büroya üzv seçilərək SSRİ-nin rəhbərlərindən biri kimi Moskvaya köçəndə də belə bir boşluq yaranmışdı. Onun yeri özünü açıq-aşkar göstərirdi. Lakin o illərdə Azərbaycan rəhbərliyi Kremldən Heydər Əliyevin himayəsini hiss etdiyindən (bu himayə, əslində, çox böyük bir qüvvə idi və o vaxtkı rəhbərlik bundan məharətlə istifadə edə bilsəydi, daha böyük işlər görmək olardı) yaranmış boşluq özünü çox da kəskin büruzə vermədi. Bu himayə kəsildikdən sonra respublika rəhbərliyinin gücsüzlüyü özünü daha çox göstərməyə başladı. Çünki bu komanda, əslində, başsız qalmışdı.

Müstəqillik dövründə isə Heydər Əliyev özünəməxsus uzaqgörənliklə qurub-yaratdığı dövləti və böyük iqtisadi-siyasi layihələri nə vaxtsa başsız qoymamaq üçün vaxtında tədbirlər gördü və mütəşəkkil bir partiya yaratdı ki, onun da sıralarından Heydər Əliyev kursunu, onun ideyalarını və hətta dəst-xəttini ləyaqətlə davam etdirə biləcək yeni siyasi lider yetişdi. Təsadüfü deyil ki, bu gün Prezident İlham Əliyev təkcə dövlət başçısı olaraq deyil, həm də Yeni Azərbaycan Partiyasının sədri və ideoloji kursun lideri kimi Heydər Əliyevin başladığı işləri bütün aspektlərdə davam etdirir.

Müasir mərhələdə əsas məsələ tarixin kəsilməzliyini təmin etmək, uzun müddətə hesablanmış siyasi və iqtisadi quruculuq planlarının həyata keçirilməsində fasilələrə və geriləmələrə yol verməmək, Heydər Əliyev dühasından qaynaqlanan strateji inkişaf xəttini davam etdirməkdir.

**“Xalq qəzeti”.-**2010.-12 dekabr.-N 273.-S.2.

# HEYDƏR ƏLİYEV MÜSTƏQİLLİYİMİZİN VƏ DİNAMİK İQTİSADİ İNKİŞAF STRATEGİYASININ MEMARIDIR

**İsa ALIYEV,**
AMEA İqtisadiyyat İnstitutunun direktoru,
iqtisad elmləri doktoru, professor,

**Aqil ƏSƏDOV,**
İqtisadiyyat İnstitutunun şöbə müdiri,
iqtisad elmləri namizədi

Ölkə iqtisadiyyatında son on ildə 900 faiz artım olduğunu qeyd edən qəzet, bu inkişafda özəl sektorun böyük rol oynadığını xüsusi vurğulayıb. Məqalədə o da qeyd edilir ki, Mərkəzi Asiya regionunun digər ölkələri böhrandan çıxmaq üçün səylər göstərdiyi halda, Azərbaycanda sürətli dinamik iqtisadi artım müşahidə olunur. Eyni zamanda, nüfuzlu "The Ekonomist" yazır ki, beynəlxalq maliyyə böhranı 2010-cu ildə də davam edəcəkdir, bununla belə Azərbaycan sürətlə inkişaf edərək liderlər sırasında yer alacaqdır.

Məlum olduğu kimi, 2009-cu il həm də ölkəmizdə yeni, daha böyük müəssisələrin açılması və ya təməlinin qoyulması ilə yadda qalmışdır. Belə ki, il ərzində yeni böyük sement zavodunun və yeni məişət tullantıları emalı zavodunun təməli qoyuldu, eyni zamanda, "Sumqayıt texnopark"ın bir hissəsi istifadəyə verildi. Sumqayıt şəhərinin əvvəlki mövqeyinin bərpa edilməsi, şəhərin həqiqətən müasir sənaye mərkəzinə çevrilməsi üçün bu texnoparkın çox böyük əhəmiyyəti olacaqdır. Belə ki, texnoparkda ən azı 10 nəhəng zavod qurulacaqdır ki, bu da yüzlərlə yeni iş yeri və 100 milyon dollarlarla investisiya qoyuluşu deməkdir. Bütün bunlar isə o deməkdir ki, ölkədə makroiqtisadi sabitliyi qoruyaq, ölkədə gedən bütün sosial proqramları, infrastruktur layihələrini vaxtında icra edək.

Son 6 il ərzində ölkədə 840 min, o cümlədən yalnız 2009-cu il ərzində 74 min yeni iş yeri yaradılmışdır. Məhz bunun nəticəsidir ki, altı il əvvəl Azərbaycan vətəndaşlarının təxminən 50 faizə yaxını yoxsulluq səviyyəsində yaşayırdısa, bu gün bu göstərici 11 faizdir. Eyni zamanda, 2008-ci ilin yekunları ilə müqayisə etsək, görərik ki, keçən il ərzində yoxsulluq 13,2 faizdən 11 faizə düşmüşdür. Yalnız 2009-cu ildə Azərbaycanda 64 məktəb, 59 səhiyyə müəssisəsi tikilmiş və ya qurulmuş, o cümlədən beş böyük olimpiya kompleksi istifadəyə verilmişdir.

Yuxarıda qeyd edildiyi kimi, bütün dünyanı sarsıdan böhrana baxmayaraq, 2009-cu ildə adambaşına düşən ümumi daxili məhsulun həcmi 7,9 faiz artaraq 3917 manata və yaxud 4874 ABŞ dollarına, ölkədə orta aylıq əmək haqqı 6,8 faiz artaraq 298 manata çatmışdır. Eyni zamanda, ötən ilin başlıca müsbət nəticələrindən biri də manatın dəyərinin sabit saxlanılması olmuşdur. Məhz bunun nəticəsində inflyasiya həddi cilovlanmış və 1,5 faiz təşkil etmişdir.

Əvvəlki illərdə olduğu kimi, 2009-cu ildə də sosialyönümlü tədbirlərin və xərclərin büdcə icrasına üstünlük verilmiş, müvafiq dövlət proqramlarının maliyyələşdirilməsi tam təmin edilmişdir. Belə ki, 2009-cu ildə sosial məqsədlər üçün dövlət büdcəsindən 2 milyard 903 milyon manat, o cümlədən onun cari xərclərindən 2 milyard 763 milyon manat vəsait sərf edilmişdir ki, bu da 2008-ci illə müqayisədə 450 milyon manat və ya 19,5 faiz çoxdur. 2008-ci illə müqayisədə 2009-cu ildə dövlət büdcəsinin cari xərclərində sosialyönümlü tədbirlər üzrə xərclərin tərkib hissəsi olan sosial-müdafiə və sosial-təminat xərcləri 24,6 faiz, təhsil xərcləri 17,2 faiz, səhiyyə xərcləri 16,2 faiz, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi xərcləri 12,9 faiz artmışdır. 2009-cu ilin ən mühüm sosial tədbirlərindən biri də əhalinin təbii qazın istifadəsindən yaranan 330 milyon manat məbləğində borcunun ölkə başçısının sərəncamı ilə silinməsi olmuşdur ki, bu da əhali tərəfindən, xüsusilə aztəminatlı vətəndaşlar tərəfindən rəğbətlə qarşılanmışdır.

2009-cu ildə aztəminatlı ailələrin sosial müdafiəsini təmin edən ünvanlı sosial yardımın hesablanmasında tətbiq edilən ehtiyac meyarının məbləği artırılaraq 60 manata çatdırılmış, ünvanlı sosial yardımların göstərilməsi məqsədi ilə dövlət büdcəsindən 180 milyon manat vəsait istifadə olunmuşdur ki, bu da 700 min nəfər aztəminatlı şəxsi və ya 175 min ailəni əhatə etmişdir. Bu müddətdə əlillərin və şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması və əlillər üçün bərpa mərkəzlərinin yaradılması ilə bağlı zəruri tədbirlər də həyata keçirilmiş, o cümlədən ölkənin 22 rayonunda və Bakı şəhərinin bir neçə rayonunda əlillər üçün çoxmənzilli və fərdi yaşayış evlərinin tikintisinə 46,2 milyon manat vəsait yönəldilmişdir. Hesabat ilində əhalinin daha çox qayğıya ehtiyacı olan məcburi köçkünlərin və qaçqınların problemləri də diqqət mərkəzində olmuşdur. Belə ki, 2009-cu il bu insanların sosial-məişət və məskunlaşma şəraitinin yaxşılaşdırılması və yaşayış qəsəbələrinin tikintisi

istiqamətində də vacib mərhələ olmuşdur. İl ərzində Neft Fondundan həmin məqsədlərə 90 milyon manat vəsait sərf olunmuşdur.

Ötən il həm də sahibkarlığın inkişafı, o cümlədən müvafiq qanunvericilik bazasının təkmilləşdirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması, bu sahəyə dövlət dəstəyi tədbirlərinin genişləndirilməsi ilə də yadda qalmışdır. Bu müddətdə ölkə Prezidentinin təşəbbüsü ilə yerli sahibkarlığın inkişaf etdirilməsi, onların birbaşa vergi yükünün azaldılması məqsədi ilə 2010-cu ildən mənfəət vergisinin dərəcəsi 22 faizdən 20 faizə, fiziki şəxslərdən gəlir vergisinin maksimal həddi 35 faizdən 30 faizə, fərdi sahibkarlar üçün isə 35 faizdən 20 faizə endirilmiş, bir sıra fəaliyyət növləri üçün xüsusi razılıq (lisenziya) alınmasına görə dövlət rüsumlarının məbləğinin azaldılmasına dair müvafiq qərarlar qəbul edilmişdir. Belə ki, hesabat ilində Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 2100 sahibkarlıq subyektinə 130 milyon manat güzəştli kreditlər verilmişdir ki, bu da 2008-ci illə müqayisədə 1,5 dəfə çoxdur. Kreditlərin 70 milyon manatı dövlət büdcəsindən Sahibkarlığa Kömək Milli Fonduna ayrılmış vəsait hesabına təmin edilmişdir. Güzəştli kreditlər hesabına qeyri-neft sektorunda 94 iri, o cümlədən 52 istehsal, emal və infrastruktur layihələri maliyyələşdirilmişdir ki, bunun da 99,2 faizi regionların payına düşür. Eyni zamanda, 2009-cu ildə qəbul edilmiş "Xüsusi iqtisadi zonalar haqqında" Azərbaycan Respublikasının Qanunu ölkədə yeni rəqabət qabiliyyətli istehsal sahələrinin yaranmasına, qeyri-neft məhsullarının ixracının artmasına müsbət təsir edərək, ümumilikdə sahibkarlığın inkişafında mühüm rol oynayacaqdır.

Keçən il ölkədə qanunvericilikdə edilən bir sıra mühüm dəyişikliklər nəticəsində sığortalanan əmanətlərin məbləği 5 dəfə artırıldı – 6 min manatdan 30 min manata çatdırıldı, bankların xarici borclarının qaytarılmasını təmin etmək üçün onlara zəruri yardım göstərildi. Eyni zamanda, qanunvericiliklə banklara və sığorta təşkilatlarına kapitallaşdırma məqsədi ilə vergi güzəştləri tətbiq olundu, mümkün itkilər üzrə banklardan maliyyə ehtiyatlanması daha da artırıldı. Bütün bunlar nəticədə il ərzində bankların aktivlərinin 14 faiz, kreditlərin 17 faiz, əmanətlərin 23 faiz, bank kapitallarının isə 18 faiz artmasına imkan verdi.

2009-cu ildə Dövlət Sosial Müdafiə Fondunun gəlirləri 1 milyard 600 milyon manat olmuşdur ki, bu da 2008-ci ilə nisbətən 205 milyon manat və ya 14,7 faiz çoxdur. Sosial sığorta haqları üzrə daxilolmalar 8,3 faiz artaraq 1 milyard 37 milyon manata çatmışdır ki, bunun da 56 faizi qeyri-büdcə təşkilatlarının payına düşür. 2009-cu ilin əvvəlinə fondun hesabında olan 91 milyon manat sərbəst qalıq, həmçinin büdcə təşkilatlarından ilin son günlərində daxil olacaq sosial sığorta haqlarının qarşılıqlı əvəzləşdirilməsi hesabına dövlət büdcəsindən əlavə ayrılan 40 milyon manat vəsait pensiyaların ödənişinə yönəldilmişdir. O cümlədən, 2009-cu ildə fondun xərcləri 1 milyard 675 milyon manat təşkil etmişdir. Bu vəsaitin də 96,6 faizi və ya 1 milyard 618 milyon manatı əhaliyə ödənişlərə yönəldilmişdir ki, bu da 2008-ci ilə nisbətən 20,8 faiz və ya 278 milyon manat çoxdur. Bütün xərclərin 94 faizini pensiya ödəmələri təşkil etmişdir. Bundan əlavə, 2009-cu ildə əhaliyə 46,4 milyon manat və ya əvvəlki ilə nisbətən 24,6 faiz çox müavinət verilmişdir. Əgər 2008-ci ildə əhalinin pul gəlirlərində fondun ödəmələri 6,7 faiz olmuşdursa, 2009-cu ildə bu göstərici, inflyasiyanın cilovlanması nəticəsində 7,2 faizədək yüksəlmişdir.

Aydındır ki, istənilən sahənin inkişaf etdirilməsi müəyyən maliyyə təminatı tələb edir. Başqa sözlə desək, həyata keçirilən layihələrin və tədbirlərin maliyyə təminatı nə qədər güclü olarsa, əldə edilən nəticə də bir o qədər uğurlu olar. 2009-cu ildə iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 9 milyard manatdan çox investisiya yönəldilmişdir ki, bu da əvvəlki illə müqayisədə 12,5 faiz çoxdur. Eləcə də, investisiyaların 79,4 faizini və ya 7,3 milyard manatını daxili investisiyalar təşkil etmişdir, bu da ötən ilin müvafiq göstəricisini 23,7 faiz üstələmişdir.

Əvvəlki illərdə olduğu kimi, 2009-cu ildə genişmiqyaslı tikinti quruculuq işləri ilə yadda qalmış, milli iqtisadiyyatın müxtəlif sahələrində infrastruktur sahələrin yenidən qurulması istiqamətində geniş əhatəli tədbirlər həyata keçirilmişdir. Eyni zamanda, istifadəyə verilmiş Ağdam, Salyan, Kürdəmir, Oğuz, Sabirabad, Biləsuvar və Qusar rayonlarında Olimpiya idman kompleksləri, Bakı şəhərində məişət soyuducuları zavodu, pambıq emalı fabriki, Şamaxı şəhərində məişət soyuducuları zavodu, Bərdə rayonunda asfalt-beton, Qazax rayonunda bentonit gili, Sabirabad rayonunda sement, Kürdəmir rayonunda konserv, Qəbələ, Lənkəran və Biləsuvar rayonlarında süd emalı, Saatlı rayonunda biyan emalı, Balakən rayonunda yem istehsalı zavodları, Ağstafa rayonunda tikiş fabriki, Şəki rayonunda kolbasa məmulatı və pendir istehsalı sexləri, Lənkəran rayonunda uşaq sağlamlıq və "Qafqaz" turist istirahət mərkəzləri daha da təkmilləşdirilmiş, onların fəaliyyətinin səmərəli təşkili istıqamətində müvafiq addımlar atılmışdır.

Ölkəmizin əldə etdiyi uğurlarda və davamlı iqtisadi inkişafa nail olunmasında qəbul edilmiş dövlət proqramlarının rolu xüsusi qeyd edilməlidir. Onu da deyək ki, bu proqramlar məhz bünövrəsi ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş uğurlu neft siyasəti nəticəsində əldə edilmiş valyuta ehtiyatları əsasında reallaşdırılır. Belə ki, "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı

Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və digər proqramlara əsasən ölkə iqtisadiyyatının gücləndirilməsi, tarazlı inkişaf etdirilməsi və dünya iqtisadiyyatına səmərəli inteqrasiyası, sürətli regional inkişafın təmin olunması, regionlarda infrastruktur təminatının və kommunal xidmətlərin səviyyəsinin yaxşılaşdırılması, xalqın rifah halının daha da yüksəldilməsi, əhalinin etibarlı ərzaq təminatının ödənilməsi üçün makroiqtisadi sabitliyin qorunması, investisiya mühitinin daha da yaxşılaşdırılması, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, sahibkarlığa, xüsusilə regional sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi, ixracyönümlü məhsul istehsalının artırılması və s. istiqamətlərdə ciddi uğurlar əldə edilmişdir.

Bütün bunlar dövlət proqramlarının real nəticələrinin çox az bir hissəsidir. Uğurlarımızın miqyasının daha da artırılması məqsədilə sahibkarlığın inkişafı və biznes mühitinin daha da yaxşılaşdırılması, dövlət-sahibkar münasibətlərinin tənzimlənməsi, ölkədə sağlam rəqabətin təmin edilməsi, biznesə başlama prosedurlarının sadələşdirilməsi, sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi, vergi yükünün davamlı azaldılması, maarifləndirmə və digər istiqamətlərdə tədbirlər davam etdirilməkdədir. Məhz bu tədbirlərin nəticəsidir ki, regionlarda sənaye, kənd təsərrüfatı və xidmət sahələrinə aid 70-dən çox yeni müəssisənin tikintisi başa çatdırılmış və 173 müəssisənin tikintisi isə davam etdirilməkdədir. Təbii ki, bütün bunlar Azərbaycan xalqının xilaskar oğlu, dünya şöhrətli siyasətçi Heydər Əliyev tərəfindən bünövrəsi qoyulan iqtisadi strategiyanın real nəticələridir. Bir məsələni də qeyd etmək lazımdır ki, dahi liderin ölkəmizin və xalqımızın inkişafına xidmət edən fəaliyyətini nəinki bir məqalədə, hətta cild-cild kıtablarda belə tam əhatə etmək qeyri-mümkündür. Yuxarıda qeyd edilənlər isə ümummilli liderin xidmətləri qarşısında "dəryadan bir damla" kimi qiymətləndirilə bilər.

**"Xalq qəzeti".**-2010.-14 dekabr.-N 274.-S.3.

# TÜRK DÜNYASININ FƏXRİ

**Nizami CƏFƏROV,**
Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri,
AMEA-nın müxbir üzvü, professor

**Dünyaya xalqlar, millətlər, insanlar arasında nizam, harmoniya yaratmaq üçün gəldiklərinə həmişə ürəkdən inanan türklər dünyanı öz iradələrinə tabe etməyə çalışmaqdan daha çox, zamanın sosial-siyasi xarakterini müəyyənləşdirməyə, qlobal proseslərin arxasınca deyil, önündə getməyə cəhd etmişlər. Türkləri qaniçən, despot kimi tanıtmaq istəyən tarixçilər indiyə qədər bir dənə də olsa əhəmiyyətli fakt, sübut göstərə bilməmiş, əvəzində isə ancaq böhtançı adını əvvəlcədən özləri üçün təmin etmişlər… Türklər əsrlər, hətta min illər boyu dünyanın müxtəlif xalqları ilə sülh şəraitində yaşamış, qurduqları nəhəng imperiyalarda bütün millətlərə yer vermiş, dünyanın vaxtaşırı pozulan harmoniyasını bərpa etmək üçün böyük ideologiyalar yaratmışlar. Onlar heç bir xalqın tarixi ilə müqayisəyə gəlməyən möhtəşəm tarixlərində dünya mədəniyyətinə heç bir xalqda müşahidə olunmayan bir səviyyədə maraq göstərmişlər. Yalnız bir faktı xatırlamaq kifayətdir ki, dünyanın əsas dinlərinin, demək olar ki, hamısı – buddizm, iudaizm, xristianlıq, İslam və s. müəyyən tarixi dövrlərdə türklər tərəfindən qəbul edilmişdir.**

Və türklərin, tarixləri boyu dünyaya bu cür açıq olmalarının, dünya ilə bu cür fəal (və təmənnasız) münasibətlərinin nəticəsidir ki, zaman-zaman dünya miqyaslı mütəfəkkirlər, sənətkarlar, ictimai-siyasi xadimlər, dövlət adamları yetirə bilmişlər. Türk dünyasının fəxri olan Heydər Əliyev zəmanəmizin yetirdiyi böyük türklərdən biri, bəlkə də birincisidir…

Heydər Əliyev hər dövrü, hər mərhələsi məktəb olan, həqiqətən, qeyri-adi bir ömür yaşamış, yalnız mənsub olduğu Azərbaycan xalqının, türk xalqlarının deyil, ümumən dünya xalqlarının təsəvvüründə özünün mükəmməl obrazını, aydın cizgiləri ilə seçilən möhtəşəm portretini yaratmışdır.

Heydər Əliyev qədim türk torpağı olan Naxçıvanda dünyaya gəlmişdir… Naxçıvanın min illərlə ölçülən mürəkkəb, gərgin bir tarixi var, bu torpaqda onlarla böyük türk hökmdarının marağı, siyasəti, etirazları toqquşmuş, qanlı vuruşmalar, qırğınlar olmuşdur. Bugünkü naxçıvanlıların dünyagörüşündə, mənəviyyatında, əxlaqında çox-çox qədim dövrlərin bir-birinin üstünə qalanmış, süxurlanmış düşüncə mədəniyyətinə rast gəldiyimiz kimi, dillərində, danışıqlarında həmin qədimlikdə olan türk leksikonunu, intonasiyasını görərsiniz.

…Naxçıvan kasıb yerdir, qışı soyuq, yayı istidir. Və naxçıvanlıların çörəyi, özləri demişkən, daşdan çıxır… Görünür, sərt həyat tərzi bu yerlərin əhalisinin, insanlarının xarakterinin formalaşmasında az rol oynamamışdır. Lakin naxçıvanlılar bu kasıb torpağı əsrlər, hətta min illər boyu canları bahasına qorumuşlar, qurbanlar, şəhidlər vermişlər. Ona görə də naxçıvanlıların nəzərində, yəqin ki, Naxçıvandan gözəl bir diyar yoxdur…

Heydər Əliyevin qısa bir zamanda qazandığı müqayisəyəgəlməz ictimai-siyasi uğurların ən mühüm şərti, heç şübhəsiz, onun qorxmazlığı, cəsarəti, qranit kimi möhkəm iradəyə malik olmasıdır.

… Azərbaycanda, ümumən keçmiş Sovetlər İttifaqında Heydər Əliyevin həmin xüsusiyyətləri barədə əfsanələr dolaşır. Əlbəttə, məsələ bu əfsanələrin reallığa nə dərəcədə yaxın olub-olmamasında deyil, məsələ ondadır ki, cəmiyyət, ictimai şüur Heydər Əliyevi əfsanəvi şəxsiyyət kimi tanıyır. O, istər dövlət təhlükəsizliyi orqanlarında, istərsə də Azərbaycan Respublikasının bilavasitə rəhbərliyində çalışdığı illərdə cəsarətli qərarlar qəbul etmiş, həmin qərarları dönmədən, heç bir maneəyə güzəştə getmədən həyata keçirmiş, demək olar ki, bir dəfə də sözündən dönməmişdir… Özündən əvvəlki respublika rəhbərliyinin liberallığına, mərkəzdən (Moskvadan) asılılığına, şəxsi rahatlığa meyilli olmalarına qarşı Heydər Əliyev əsl milli rəhbər obrazını qoymuş, bütün kəskinliyi ilə təsdiq etmişdir.

20-30-cu illərdə hələ Azərbaycanda (ümumən türk sovet respublikalarında) "türk" sözü qadağan olunmamışdı: "türk dili", "Azərbaycan türklərinin ədəbiyyatı", "türk mədəniyyəti", "türk teatrı", "türk işçisi" və s. ifadələr böyük tarixi olan bir milli hadisəni hələ öz adı ilə adlandırırdı. Heydər Əliyevin gəncliyi məhz bu illərdə keçmişdi… 30-cu illərdə (xüsusilə həmin onilliyin birinci yarısında) Azərbaycan orta məktəblərində ana dili, ədəbiyyat, tarix fənləri türkçülükdən heç də tamamilə "xilas olmamışdı". Türkiyə ilə müqavilə əsasında Azərbaycana gəlmiş türkiyəli mütəxəssislərin 20-ci illərdə tərtib etdikləri proqramlar, dərsliklər hələ bu və ya digər dərəcədə qüvvədə idi. Vətənini sevən müəllimlər də vardı… Və 30-cu illərin inqilabi coşğunluğu, siyasi-ideoloji təlatümləri məktəblərdə istər-istəməz milli hisslərlə kompromisə girməli olurdu. Heydər Əliyev təhsilini belə bir məktəbdə almış, 30-cu illərin təbəddülatlı ideyalar mühitində böyümüşdü. Həmin mühit insanı köləyə də çevirə bilərdi, milli ideyalar uğrunda mübarizə də…

…Heydər Əliyevdə türkçülük duyğuları gənc yaşlarında orta məktəb şagirdi ikən oyanmışdı. O zaman türkçülüyü əsasən Türkiyəyə – yeganə müstəqil türk dövlətinə maraq müəyyən edirdi. Böyük türkçü sonralar xatırlayırdı ki, "cocuq ikən, gənc yaşlarımda Türkiyəyə böyük hörmətim, məhəbbətim var idi. İndi ola bilər ki, elə böyük sirr deyil açım, o vaxtlar mən türk dili lüğətini, türk dili dərsliyini götürmüşdüm, türk dilini öyrənirdim. Bunu da açıq deyə bilərəm ki, müəllimim də var idi, bir müddət – iki-üç il mənə türk dili öyrətdi. Türkiyənin tarixini öyrənirdim, şairlərini öyrənirdim. Gənc ikən indi mənim yaşımda olan adamlar ola bilər ki, bunu xatırlasın, məsələn, Rəşad Nuri Güntəkinin "Çalıquşu" romanı bizim hamımızı heyran edən bir əsər idi… Ancaq mən "Çalıquşu"nu 13-14 yaşımda oxumuşdum. O, məni heyran etmişdi". Heydər Əliyev daha sonra xatırlayır: "Bir "Çalıquşu" deyil, biz o vaxtlar Türkiyənin böyük şairlərini, yazıçılarını öyrənirdik. Əbdülhəq Hamid, Tofiq Fikrət və bir neçə başqaları bizim o vaxt, orta məktəbdə oxuduğumuz illərdə ədəbiyyat dərsliklərimizə daxil idi. Ədəbiyyat dərsliklərində Türkiyənin bu böyük yazıçılarının, şairlərinin əsərləri indi də gözümün qabağındadır. Yəni mən gənc yaşlarımda, bu da təbiidir , burada heç bir qeyri-təbii şey yoxdur, içərimdən, kökümdən, qəlbimdən, mənəviyyatımdan gələn bir hissiyyatdır ki, Türkiyəyə böyük maraqla, heyranlıqla baxırdım"…

Gələcəyin böyük Azərbaycan və ümumən türk dövlət xadimini Türkiyəyə (həm yaxın, həm də əl çatmayan, uzaq məmləkətə) hələ ilk gəncliyindən bağlayan hisslər onu həyatının heç bir dövründə, mərhələsində tərk etməmişdi: "… Biz Türkiyə ilə Azərbaycan arasında həyat körpüsünü, ümid körpüsünü yaradanda da mən bu hissiyyatları yaşadım. O vaxt mən Naxçıvanda yaşayırdım. Həyatım belə gətirdi ki, mən Naxçıvanda doğuldum, böyük bir yol keçdim, Moskvaya getdim. Ondan sonra gəlib doğulduğum yerdə yaşamağa məcbur oldum. Mənim üçün bu da çox gözəl bir dövrdür. Ona görə gözəl bir dövrdür ki, Türkiyə ilə Azərbaycan arasında əsrlər boyu həsrətində olunan körpünün tikilməsində iştirak etdim, o körpünün inşasını apardım və Türkiyənin böyük oğlu Süleyman Dəmirəllə, Türkiyənin millət vəkilləri ilə, nazirləri ilə birlikdə həsrət, ümid körpüsünü bir yerdə açdıq"…

1994-cü il noyabrın ilk günlərində Türkiyənin Böyük Millət Məclisində yada saldığı bu xatirələrə Heydər Əliyev onu da əlavə edir ki, "… Azərbaycanda belə həsrətlərlə yaşamış adamlar çox olub. Onların bir çoxu bu günləri görmədən həyatını dəyişib. Ancaq biz xoşbəxtlərdənik ki, bu günləri gəlib görmüşük. Türkiyə ilə Azərbaycanın bərabərliyini, dostluğunu görürük, onun şahidiyik və bu dostluğu daha da inkişaf etdirmək üçün fəaliyyət göstəririk…".

30-cu illərin sonlarına doğru SSRİ-də (xüsusilə Azərbaycanda) türkçülüyə qarşı aparılan qəddarcasına mübarizə milli-ictimai təfəkkürdə dəhşətli sarsıntılar törətdi, düşünməyə qabil insanlar sovet ideologiyasının amansız təzyiqi altında məhv edildilər, bütöv xalqlar yerindən-yurdundan didərgin düşdülər: Krım tatarları, Mesxeti türkləri, Şimali Qafqaz türkləri… Orta Asiya və Qazaxıstan çöllərinə, Cənubi azərbaycanlılar isə İrana sürgün olundular… Əlbəttə, həmin illərdə Heydər Əliyev hələ gənc idi, dəyişən, pozulan, yenidən düzülməyə cəhd edən, qəddar ideologiyalar, amansız mövqelər, coşğun ehtiraslar əlində oyuncağa çevrilmiş dünyanı ancaq gənclik marağı ilə seyr edir, həyatda ancaq ona məxsus olan, taleyin məhz onun üçün ayrıdığı yeri axtarırdı… İlk tapıntılar dövlət təhlükəsizliyi orqanlarından başlandı, ətrafdakı hadisələri izləməyə, araşdırmağa, fenomenal yaddaşına yığıb təhlil etməyə meylli olan gənc çox qısa bir müddətdə öz işinin ustasına çevrildi: onun çalışdığı sahə dünyanın tərs üzünü görməyə, hadisələrin, proseslərin mahiyyətinə varmağa, artıq hökm – fərman olmuş sovet ideologiyasının fəaliyyət metod və üsullarını müşahidə etməyə imkan verirdi… Dövlət təhlükəsizliyi orqanlarındakı işi gələcəyin böyük ictimai-siyasi və dövlət xadiminin möhkəm xarakterini, sərt məntiqini daha da cilalayırdı…

Heydər Əliyevin dövləti idarə məharətinin formalaşmasında 50-60-cı illər həlledici rol oynamışdır, məhz bu illərdə respublika rəhbərliyindəki yüksəkliyi eyni zamanda, ona imkan verirdi ki, sovet dövlətçiliyinin həm məzmunu, həm də praktikasına dərindən bələd olsun. Bu cür dərindən bələdlik aşağı-yuxarı qırx yaşlarında olan, artıq yetkin dövlət adamına birinci növbədə kifayət qədər mürəkkəb sosial-siyasi mühitdə fəaliyyətinin strategiyası ilə taktikasını düzgün əlaqələndirmək məharəti qazandırdı.

Geniş yayılmış belə bir fikir mövcuddur ki, 80-ci illərdə sovet dövləti rəhbərliyində işləməyə aparılan Heydər Əliyev Moskvada o səviyyədə yeganə türk idi; əslində, həmin sözləri bu və ya digər şəkildə 50-60-cı illərin Bakısı barədə də demək mümkündür… Bakıda Azərbaycan rəhbərliyində M.C. Bağırovun mühakiməsindən sonra milli kadrlar artıq heç nəyi həll etmirdilər, dövlət təhlükəsizliyi orqanlarında isə vəziyyət, sadəcə olaraq, milli mənafelər baxımından faciəli idi. Heydər Əliyev sonralar Moskvada görmək istədiyi işləri Bakıdan başladı. Rus-sovet dövlətçiliyinin tarixi əsasında qədim türk dövlətçiliyinin əsrlər boyu qazandığı təcrübə dayanmışdı… IX-XII əsrlərdə qıpçaqlar, XIII-XVI əsrlərdə monqol-tatarlar, görkəmli türkoloq L.N. Qumilyovun sübut etdiyi kimi, Avrasiya dövlətçiliyini yaratdılar. XVII-XVIII əsrlərdə Qərbi Avropanın müasir texnikaya əsaslanan dünya hakimiyyəti iddiaları Rusiyanı da öz ağuşuna aldı, avropalı

olmağa cəhd edən Rusiya sarayı avropalı kimi yeməyi, geyməyi, danışmağı hələ əməlli-başlı mənimsəməmişdi ki, XIX əsr gəldi. Avropa Rusiyada daha çox silahı, hərbi texnikası, inqilabi çevriliş ideyaları, üsyanları ilə görünməyə başladı… Və görməmiş Rusiya bir-birinin ardınca çevrilişlərə məruz qalıb, nəhayət ki, qeyri-adi, analoqu olmayan bir dövlətə – sovet dövlətinə çevrildi.

…Hansı qiyafədə təzahür edirsə-etsin, mahiyyət etibarilə bir türk dövləti olan Rusiya – SSRİ dövlətçilik təfəkkürü zəif rus-slavyan xadimləri tərəfindən heç zaman normal idarə edilə bilməmişdir. Türklər isə XVII əsrdən etibarən yüksək idarəçiliyə, demək olar ki, buraxılmamışlar… Ona görə də rus-slavyanlarla azsaylı (az qorxulu!) qeyri-türklər arasında həmişə nə isə bir yaxınlaşma, dövlət idarəçiliyinə qarşılıqlı münasibət, qeyri-rəsmi saziş özünü göstərmişdir.

Heydər Əliyev öz böyük türk ağlı ilə bunları görürdü. Və əslində, çox şeyləri görürdü… Sovet türklüyü kommunizm bayrağı altında taktiki hərəkət qabiliyyətini bütünlüklə itirmişdi, rus-slavyan düşüncəsi bir kənddə qurduğu kommunizmi – kolxozu bütöv bir ölkədə qurmağa çalışırdı, azsaylı (lakin çevik) xalqlar kosmopolit mühitdə daha sərbəst hərəkət edirdilər.

…Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilməsindən bir neçə il sonra Azərbaycanın iqtisadi, ictimai-siyasi, mədəni tarixində, həqiqətən, yeni bir dövr başlandı. Bakı hələ Moskva deyildi, sovet hakimiyyəti Bakıya, deyək ki, Tbilisidən, yaxud Yerevandan çox əhəmiyyət verirdi. 1926-cı ildə Bakıda I Türkoloji qurultay keçirilmişdi, burada Şərq xalqlarının məclisləri, yığıncaqları olmuşdu, buradan Şərq dünyasına tarixi yollar uzanırdı… Bakı Şərqin qapısı idi. Heydər Əliyevin Bakıda gözlənilməyən bir sərbəstliklə respublikanı idarə etməyə başlaması nəinki Moskvada, heç Bakının özündə də rahat qarşılanmadı. Niyə? Ona görə ki, yeni dövlət başçısı gözlənilməyən bir halda neçə illərin sükunətini hərəkətə gətirdi, simasızlaşmağa gedən milləti oyatdı, türk düşüncəsini silkələdi, pozulmaqda olan ictimai əxlaqı dindirdi… Bu isə özünə möhkəm yer eləmiş, gedəni söyüb, gələni öyməklə neytrallaşdıran, müxtəlif millətlərdən ibarət məmurları təmin etmirdi; şantaja, böhtana əl atdılar, lakin bu türk o biri türklərdən deyildi… Moskvaya gəldikdə isə… Böyük bir işə başladığını yaxşı bilən Heydər Əliyev, əvvəla, L.İ. Brejnevin şəxsində özünə möhkəm dayaq tapmışdı, ikinci tərəfdən, iqtisadiyyatı dirçəldən, "kommunizmin maddi bazası"nı hazırlayan bir respublika rəhbərinə açıq şəkildə qarşı çıxmaq üçün heç bir ciddi əsas yox idi…

Türk hökmdarlarının böyük ənənələrini davam etdirən Azərbaycan rəhbəri respublikanı nəhəng tikinti meydanına çevirdi: Bakı şəhəri görünməmiş bir sürətlə abadlaşdırıldı, Naxçıvanda, Gəncədə, Sumqayıtda, respublikanın rayon mərkəzlərində mədəniyyət evləri, məktəblər, inzibati binalar, yaşayış evləri tikildi, kanallar çəkildi, su anbarları yaradıldı və s. və i. a. Heydər Əliyev bu vaxta qədər ittifaq miqyasında, demək olar ki, adı çəkilməyən respublikanı SSRİ-nin ən qabaqcıl müsəlman-türk respublikasına çevirdi; on ildən artıq müddətdə Heydər Əliyevin Azərbaycanın iqtisadi, mədəni, mənəvi yüksəlişi üçün gördüyü işləri o zaman SSRİ respublikalarından heç birinin rəhbəri görməmişdi… Heç digər görkəmli türklər- D.Ə. Kunayevlə Ş.R. Rəşidov da görə bilməmişdilər… Halbuki onlara nisbətən cavan Heydər Əliyev artıq müəyyən taktiki məqsədlərlə Moskvanın gözlərini qamaşdırmaqla kifayətlənmir, mənsub olduğu millət üçün çox böyük işlər görməyə, strateji planlarını həyata keçirməyə çalışırdı. Həmin planlardan biri, bəlkə də, birincisi xalqın özünü özünə tanıtdırmaq, onun normal etnokulturoloji həyatını bərpa etmək idi…

Heydər Əliyev Azərbaycan tarixinin ən müxtəlif problemlərinin öyrənilməsinə, milli tarixi təfəkkürün oyadılmasına xüsusi əhəmiyyət verdi, ixtisasca tarixçi olan (o, Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir) Heydər Əliyev üçün tarix yalnız "üzü keçmişə siyasət" deyildi, həm də və bəlkə də, daha çox millətin öz həqiqi keçmişini dərindən öyrənib gələcəyə hazırlıqlı getməsi üçün bir məktəb, ilham mənbəyi idi. Azərbaycan xalqının mənşəyi, formalaşması, Azərbaycan millətinin təşəkkülü kimi mühüm tarixşünaslıq problemləri məhz 70-ci illərdə bütün elmi-ideoloji kəskinliyi ilə qoyuldu, müşavirələr, müzakirələr keçirildi. Və bu gərgin axtarışlar heç bir elmi adı, alimlik dərəcəsi olmayan Heydər Əliyevin bilavasitə, yaxud dolayısı ilə rəhbərliyi altında gedir, vaxtaşırı ona məlumatlar verilirdi.

…Onun üçün tarix sosial-siyasi tarixlə məhdudlaşmırdı, Heydər Əliyev milli dil, ədəbiyyat, mədəniyyət və s. tarixinin problemləri ilə də maraqlanır, mütəxəssisləri səfərbər edirdi. Azərbaycan ədəbiyyatının, mədəniyyətinin yalnız tarixi ilə deyil, bugünü ilə də sonsuz enerji ilə məşğul olan, Azərbaycan yazıçıları, mədəniyyət, incəsənət xadimləri ilə ardıcıl görüşən, onların qurultaylarında fəal iştirak edən respublika rəhbəri millətin yaradıcı qüvvələrini əvvəlki illərin ətalətindən çıxardı, onlarla görkəmli yazıçı, incəsənət, mədəniyyət, elm xadiminin sədası məhz respublika rəhbərinin nüfuzu sayəsində qısa bir zamanda SSRİ-nin mərkəzindən gəlməyə başladı… Yəni Azərbaycan Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə təkcə nefti, pambığı, üzümü ilə deyil, mənəvi-intellektual sərvətləri ilə də ittifaq miqyasında məşhurlaşmışdı…

Respublikanın müxtəlif rayonlarında dünya mədəniyyətindən, demək olar ki, təcrid edilmiş şəkildə yaşayan, lakin zəhmətkeş, istedadlı xalqın Azərbaycanın mərkəzi ilə əlaqələrinin genişlənməsində də Heydər

Əliyevin bugünə qədər dərindən araşdırılmamış (lakin araşdırılmaya ehtiyacı olan!) mühüm xidmətləri olmuşdur, məhz bu görkəmli şəxsiyyətin, böyük dövlət xadiminin uzaqgörən siyasəti nəticəsində Bakı "beynəlmiləl" şəhərdən milli şəhərə çevrilirdi… Yeganə ümumittifaq türkologiya jurnalı da 1970-ci ildən məhz Bakıda çıxmağa başladı. Azərbaycana rəhbərlik etdiyi illərdə yalnız Azərbaycan ictimaiyyəti deyil, ümumən sovet ictimaiyyəti gördü ki, Heydər Əliyev təkcə qorxmaz, cəsarətli, möhkəm iradəli bir rəhbər yox, həm də müdrik, ensiklopedik məlumata, güclü məntiqə malik, cəmiyyəti dərindən bilən, onu bu və ya digər məqsəd uğrunda hərəkətə səfərbər etməyi bacaran təşkilatçı dövlət xadimi, yüksək səviyyəli ideoloqdur… Belə şəxsiyyətlər L.İ.Brejnev dövründə istər Moskvada, istərsə də respublikaların rəhbərliyində çox deyildi, ölkə "rahat" yaşamağa meyilli idi, tarixi problemlər, necə deyərlər, dondurulmuş, "yeni fikrin", "yeni mövqe"yin, siyasi-ideoloji axtarışların qapısı bağlanmışdı… Yaşı ötmüş, lakin təbiətən xeyirxah olan, Azərbaycana (Heydər Əliyevə!) xüsusi münasibət bəsləyən L.İ.Brejnev ayaqları dolaşa-dolaşa dünyanın müxtəlif ölkələrini gəzir, səmimi-qəlbdən sülh istəyirdi… Lakin Moskva Əfqanıstana qoşun yeritdi və uğursuz müharibəyə başladı…

L.İ.Brejnev erası başa çatır, son dövrünü yaşayan sovet dövlətinin rəhbərliyində tənəzzüldən çıxış yolları axtarılırdı. Vəziyyətin mürəkkəbliyi çoxlu suallar doğurur, axtarışlara sövq edir, müxtəlif ideyalar, mülahizələr meydana çıxırdı. Və təbii ki, müxtəlif xarakterli qüvvələri həm daxildə, həm də xaricdə fəaliyyətə, aktiv hərəkətə sövq edirdi.

70-ci illərin sonu-80-ci illərin əvvəllərində Sov. İKP MK-nın Siyasi Bürosunda (faktiki olaraq ölkə rəhbərliyində) üç türk vardı: Dinmühəmməd Kunayev (qazax), Şərəf Rəşidov (özbək) və əlli yaşlarında olan Heydər Əliyev… Zaman bu türklərdən üçüncüsünü tədricən ön mövqeyə – ruslarla təkbaşına mübarizə mövqeyinə çıxarırdı.

…80-ci illərdə sovet dövlətinin rəhbərliyində ardıcıl dəyişikliklər getdi. Baş katiblər biri digərini əvəz edir, siyasi büronun tərkibi dəyişirdi. Heydər Əliyev belə bir mürəkkəb dövrdə Moskvaya çağırıldı, Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini oldu. Bu, sovet dövləti yaranandan bəri türk-müsəlman dövlət xadiminin gəlib çıxdığı ən böyük vəzifə idi… Tarixi bir qədər də geniş miqyaslı götürsək, ən geci XVII əsrdən bəri türk-slavyan-sovet dövlətinin rəhbərliyində ən yüksək vəzifə əldə etmiş türk, müsəlman o idi… 80-ci illərin ortalarında artıq Heydər Əliyev sovet dövləti rəhbərliyində yalnız Azərbaycan xalqının yox, ümumən türk-müsəlman xalqlarının lideri idi, türk dünyasının həm strateji, həm də taktiki problemlərini həll etmək yalnız onun üzərinə düşürdü. Və Heydər Əliyev döyüşürdü.

…Deyəsən, Allah sovet türklərinə bir şans vermişdi. Qətiyyətli, müdrik, enerjili türkün ətrafında birləşmək, türklərin dağılmış hüquqlarını, səlahiyyətlərini bərpa etmək, bəlkə də, mümkün idi. Lakin türk respublikalarının rəhbərlərində bu dəfə də lazımi cəsarət olmadı. Rus şovinizmi isə ayaqda idi. M. Qorbaçov mənfur "perestroyka" fırıldağına başlamışdı… Heydər Əliyevin qarşısında iki yol qalırdı: ya axıracan (təbii ki, məğlub edilənəcən!) döyüşmək, ya da öz karyerasını gözləyib gicbəsər M. Qorbaçovun avantürist sayıqlamalarını müdafiə etmək…

O birinci yolu seçdi… Və Heydər Əliyevlə M. Qorbaçov ilk dəfə Qazaxıstan məsələsində üz-üzə gəldilər. M. Qorbaçov vaxtilə Siyasi Büroda böyük nüfuzu olmuş Dinmühəmməd Kunayevi Qazaxıstan rəhbərliyindən kənarlaşdırmaq, yerinə rus G.Kolbini qoymaq qərarına gəldiyini söylədi. Heydər Əliyev qəti şəkildə onun əleyhinə çıxdı: əvvəla, Dinmühəmməd Kunayev 20 ildən çoxdur ki, respublikaya uğurla rəhbərlik edir, nə olsun ki, yaşlıdır?.. Əgər Dinmühəmməd Kunayev çıxarılmalıdırsa, yerinə qazax qoyulmalıdır (məsələn, nazirlər sovetinin sədri Nursultan Nazarbayev), rus yox!..

M. Qorbaçov və onu müdafiə edən, bir sözünə də yox deməyən Siyasi Büro "məqsədinə çatdı". Lakin Qazaxıstanda M. Qorbaçovun bu qərarına qarşı kütləvi çıxışlar oldu, həmin çıxışlar mərkəz tərəfindən "millətçilik" elan edildi… Qazaxıstan türk gəncliyinin milli hüquqlarını qorumaq üçün ayağa qalxmasında, ümumiyyətlə qazax milli dövlətçilik şüurunun oyanmasında Heydər Əliyevin xidməti, elə bilirik ki, həmişə xatırlanacaqdır.

…M. Qorbaçovun Azərbaycanla bağlı nadan siyasəti, özbaşınalığı o həddə çatdı ki, 1987-ci ilin sonlarında Siyasi Büronun iclasında Heydər Əliyev onu ittiham etməli oldu. Baş katibin həyasızcasına dediyi "Sən Azərbaycanın işlərinə qarışma!" sözlərindən hiddətlənən keçmiş Azərbaycan rəhbəri, ümumən artıq azərbaycanlıların liderinə çevrilmiş Heydər Əliyev türkün son ümidi olan fiziki gücündən istifadə etməli oldu, əgər Siyasi Büronun üzvləri araya girib son dərəcədə qəzəblənmiş türkü iclas salonundan çıxarmasaydılar, M. Qorbaçov layiq olduğu cəzasını, heç şübhəsiz, alacaqdı.

…Rus şovinizmi onunla üz-üzə dayanan sonuncu türkü də tərk-silah etdi. Heydər Əliyev Moskvada təcrid edildi, onunla görüşmək qadağan olundu, hərəkətləri izlənildi. Bu azmış kimi, doğma Azərbaycanda onun əleyhinə amansız təbliğata rəvac verildi. Və həmin təbliğat gedə-gedə Azərbaycan torpaqları da mənfur Ermənistan tərəfindən işğal edilirdi. Moskva bununla da kifayətlənməyib, Bakıya qoşun yeritdi, itaətsiz xalqı

qəddarcasına cəzalandırdı… 80-ci illərin sonu 90-cı illərin əvvəllərində Azərbaycanda Heydər Əliyevin Vətənə dönməsinə münasibət birmənalı deyildi: Moskvanın “kadrlar”ı, hakimiyyətə can atan (lakin dövlət idarəçiliyi sahəsində səriştəsiz) qüvvələr, onlara qoşulmuş “maraqlılar”… “qüvvətli əl”dən (əslində, “qüvvətli baş”dan!) çəkinirdilər; geniş xalq kütlələri, xüsusilə orta və yüksək ixtisaslı ziyalılar, yazıçılar, mədəniyyət, elm xadimləri, əmin-amanlıq tərəfdarları… isə təcrübəli dövlət xadimini gözləyirdilər.

…Heydər Əliyev Azərbaycana ölkənin ümumən məhv olmaq təhlükəsi altında olduğu zaman gəldi. Və Azərbaycanı nəinki xilas etdi, onu həm də türk dünyasının qabaqcıl məmləkətlərindən birinə çevirdi. Bu gün Azərbaycan haqqında danışmaq türk dünyası barəsində, Heydər Əliyev haqqında danışmaq isə türk böyüklərindən biri barəsində bəhs etmək deməkdir. Müstəqillik əldə etmiş heç bir (digər) türk dövlətinin başçısı bu səviyyəyə, ümumən türk dünyasının lideri olmaq səviyyəsinə gəlib çatmamışdır…

Zəngin dövlət idarəçiliyi təcrübəsi (və potensialı) olan Azərbaycan Prezidenti türk dünyasının birliyi üçün nə qədər böyük işlər görmüşdürsə, ondan da böyük işlər görmək gücünə, imkanlarına malikdir. Burada söhbət gözəl nəzəri fikirlər söyləməkdən, “Çinə türk bayrağı sancmaq”dan getmir, konkret, perspektivli işlərdən gedir. Azərbaycan rəhbərliyinə yenidən gəldikdən, siyasi hakimiyyət əldə edildikdən sonra Heydər Əliyevin fəaliyyətində bir sıra sahələr aydın cizgiləri ilə seçilir:

- Azərbaycanın iqtisadi, siyasi, ictimai problemlərinin həllində türk dünyasının imkanlarından istifadə etmək;
- türk dünyasının qüvvələrini birləşdirmək, hər hansı türk dövlətinin (xüsusilə beynəlxalq) problemlərinin həllində türk dünyasının birgə hərəkətini təmin etmək;
- türk dünyasının beynəlxalq nüfuzunun daha da gücləndirilməsinə çalışmaq və bunun üçün hər bir müstəqil türk dövlətinin imkanlarından yararlanmaq və s.

…Heydər Əliyevin türk dünyasının problemləri ilə daha ardıcıl məşğul olduğu mərhələ 1993-cü ildən, müstəqil Azərbaycan Respublikasının Prezidenti seçiləndən sonra başlayır. İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının 2-ci görüşünün iştirakçılarına 5 iyul 1993-cü il tarixli müraciətində Heydər Əliyev demişdi: “İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin – Türkiyənin, İranın, Pakistanın, Əfqanıstanın, Qazaxıstanın, Özbəkistanın, Türkmənistanın, Qırğızıstanın, Tacikistanın, Azərbaycanın istifadə edilməmiş zəngin təbii sərvətləri, material ehtiyatları vardır. Onlardan birgə istifadə olunması əsl müsəlman intibahına çevriləcək, bütün bəşəriyyətin inkişafına töhfə verəcəkdir”… Bu müraciətdə türklük düşüncəsinin ən azı üç tarixi əlaməti əks olunur:

1) ayrı-ayrı türk dövlətlərinin müstəqilliyinin müdafiə olunması;
2) türk (və ümumən müsəlman) dünyasının birliyinə çalışılması;
3) həmin birliyin dünyada harmoniya yaradılmasına xidmət etməsi ideyasının müdafiəsi.

…Heydər Əliyev türk birliyinin möhkəmlənib inkişaf etməsində Türkiyənin rolunu həmişə yüksək qiymətləndirmiş, Türkiyə Cümhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürkün tarixi fəaliyyətini dönə-dönə dəyərləndirmiş, onu “iyirminci əsrin bəşəriyyətə verdiyi böyük dühalardan” saymışdır. Türkiyə haqqında müxtəlif vaxtlarda deyilmiş aşağıdakı sözlərin hamısı Heydər Əliyevə məxsusdur: “Türkiyə hazırda dünyanın siyasi durumunda nüfuzlu təsir qüvvəsinə malik, ümumbəşəri dəyərləri qorumaq əzmində olan, iqtisadi və mədəni səviyyəsi etibarilə inkişaf etmiş qüdrətli dövlətlərdən birinə çevrilmişdir…”, “Azərbaycanlıların qəlbində Türkiyənin xüsusi yeri var…”. “Türkiyə Azərbaycan üçün qardaş, dost ölkədir”. “Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin qədim və zəngin tarixi var”. “İndi Azərbaycan Respublikası bir müstəqil dövlət kimi Türkiyə Cümhuriyyəti ilə bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsinə çalışır…”. “Mən bu gün bir daha Türkiyə torpağına ayaq basmağıma, Türkiyə torpağında olmağıma görə özümü çox xoşbəxt hesab edirəm…”. “Yeni doğulmuş müstəqil Azərbaycan dövləti Türkiyənin köməyini, yardımını, qayğısını daim hiss edir”. “Hələ gənc yaşlarımda kitablardan, qəzetlərdən Türkiyə haqqında, türk xalqı haqqında oxuyarkən Türkiyəyə həmişə həsrətlə baxır, ona böyük maraq göstərir, Böyük Millət Məclisinin işi barədə, onun qəbul etdiyi qərarlar barədə məlumatları həvəslə, diqqətlə oxuyurdum”. “… Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir”. “… Türkiyə ilə Azərbaycan arasında indiyədək yaranmış əlaqələr yeni mərhələyə keçir”. “… xalqlarımız bir kökdəndir… Hətta son dövrdə ayrı düşməyimiz də bu birliyimizi əlimizdən almamışdır. İndi biz bu birliyi davam etdirmək üçün bütün imkanlara malikik…”. “Biz bir millət, iki dövlətik…”. “Burada, bu salonda kimin türkiyəli, kimin azərbaycanlı olduğunu ayırmaq mümkün deyildir…”. “Azərbaycanla Türkiyə arasındakı sədlər, sərhədlər, qadağalar, yasaqlar götürülmüşdür”… və s.

Heydər Əliyev 1994-cü ilin fevralında Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin dəvəti ilə Türkiyədə rəsmi səfərdə olarkən müxtəlif görüşlər keçirmiş, bu ölkə barəsində on illərlə ürəyində, beynində daşıdığı fikirlərinin əksəriyyətini ilk dəfə söyləmişdir…

90-cı illərin əvvəllərində hələ Naxçıvanda olarkən Heydər Əliyev Türkiyə prezidenti Süleyman Dəmirəllə, Türkiyənin böyük ictimai-siyasi və dövlət xadimləri ilə tez-tez görüşmüş, sıx əlaqələr saxlamışdır… Müşahidələr göstərir ki, Süleyman Dəmirəl Azərbaycan Prezidentinin ən çox qiymətləndirdiyi, hətta özünə qardaş hesab etdiyi türk dövlət başçılarından, dünya ictimai-siyasi xadimlərindən biri (və bəlkə də birincisi!)dir. Heydər Əliyevin Süleyman Dəmirələ müraciətində dediyi aşağıdakı sözlər bunu bir daha sübut edir: "Türkiyə Cümhuriyyətinin beynəlxalq aləmdə xarici siyasətini aparmaqda, onu beynəlxalq təşkilatlarda təmsil etməkdə, Türkiyə Cümhuriyyətinin ilbəil dünya birliyində layiqli yer tutmasında sizin böyük xidmətləriniz var və buna görə də siz təkcə Türkiyədə yox, yalnız türk dünyasında yox, bütün dünyada məşhur bir siyasi-ictimai xadimsiniz, dövlət xadimisiniz".

Heydər Əliyev daha sonra demişdir: "Azərbaycan xalqının sizə xüsusi hörmət və məhəbbəti vardır. Çünki xalqımız sizi çox yaxşı tanıyır, siyasi fəaliyyətinizi, dövlət fəaliyyətinizi həmişə izləyir. Təsadüfi deyil ki, hələ "soyuq müharibə" vaxtı, Sovetlər İttifaqı ilə Türkiyə Respublikası arasında münasibətlərin gərgin olduğu bir dövrdə Azərbaycan Respublikası, xalqımız Sovetlər İttifaqının tərkibində olduğu bir vaxtda – 25 il bundan öncə siz Türkiyənin baş naziri kimi Sovet İttifaqına ilk səfər etmisiniz. Moskvada, Sovetlər İttifaqının başqa şəhərlərində olmusunuz. Biz o zaman hiss etdik ki, qəlbiniz, ürəyiniz Azərbaycana da gəlməyi sizə əmr etmiş, Bakıya gəlməyi sizə tövsiyə etmişdir. Siz Bakıya, Azərbaycana gəldiniz.

Heydər Əliyev Süleyman Dəmirəli "böyük öndər Mustafa Kamal Atatürkün işinin etibarlı davamçısı kimi, onun böyük şagirdi kimi" qiymətləndirmiş, "türk dünyasının, türk dövlətlərinin bir-birinə daha yaxın olması" yolunda hələ çox işlər görəcəyinə əminliyini ifadə etmişdir…

…Türkiyə xüsusilə 20-ci illərdən başlayaraq yalnız türkiyəlilərin deyil, ümumən dünya türklərinin mənəvi vətəni olmuşdur. Sibir, Türküstan, Volqaboyu, Şərqi Avropa, Şimali Qafqaz, Azərbaycan türkləri həmin illərdən etibarən ümidlərini Türkiyəyə bağlamışdılar. Bunun bir səbəbi də o idi ki, cəza orqanlarının təqibindən qaçan yüzlərlə türk mücahidi 20, 30, 40-cı illərdə məhz Türkiyədə məskunlaşmışdılar: onların içərisində Əli bəy Hüseynzadə, Məmməd Əmin Rəsulzadə, Əhməd bəy Ağaoğlu, Zəki Vəlidi Toğan, Yusif Akçura oğlu, İsa Yusif Alptəkin, Əhməd Cəfəroğlu… kimi böyük simalar vardı ki, elmi, ictimai-siyasi, mədəni-ədəbi fəaliyyətlərinin sonuna qədər türkçülüyü Türkiyəçilik səviyyəsinə enməyə qoymamış, böyük ideallar uğrunda gərgin mücadilələr vermişlər. Və beləliklə, Türkiyə faktiki olaraq bir neçə on il (əlli ildən artıq) ümumən türklərin vətəni olmuşdur…

…Heydər Əliyev görünür, Türkiyəni bir də ona görə sevmişdir ki, bütün Türk dünyasından Türkiyəyə yollar uzandığı kimi, Türkiyədən də bütün Türk dünyası görünürdü (və bu gün də görünməkdədir!). Yalnız uğurları ilə deyil, həm də qüsurları, problemləri ilə… Türkiyə təkcə həmin uğurlara sevinmir, problemlərin həllinə, mübahisələrə, dedi-qodulara da səbrlə münsiflik edir.

…Heydər Əliyevin tarixi Türküstan – Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan… ilə, həmin türk regionunun dövlət xadimləri, siyasi-ictimai liderləri ilə əlaqələri sovet dövründə sıx olmuş, sovet dövlətinin süqutundan sonra isə yeni milli-ideoloji məzmun kəsb etmişdir. Qazaxıstana, onun rəhbərliyində gedən proseslərə, rus şovinizminin bu proseslərə müdaxiləsinə Heydər Əliyevin münasibəti barədə artıq bəhs etmişik. Çox keçmədi ki, həmin münasibətin yeganə düzgün münasibət olduğunu tarix təsdiq elədi: Heydər Əliyevin adını böyük uzaqgörənliklə qeyd etdiyi Nursultan Nazarbayev respublika rəhbərliyinə gəldi.

…1994-cü ilin martında Çinə rəsmi səfərdən Bakıya qayıdan Heydər Əliyev Almatıda dayanır və Nursultan Nazarbayevlə görüşür. Azərbaycan Prezidentinin həmin görüşdəki çıxışı olduqca maraqlı, türk dövlətləri başçılarının münasibətləri baxımından olduqca təsirlidir: "Əvvəlcə qeyd etmək istəyirəm ki, mən özüm Almatıda dayanmağı xüsusi olaraq planlaşdırdım ki, məhz Nursultan Abişeviçlə görüşə bilim. Başqa sözlə, söhbət təkcə texniki ehtiyacdan deyil, həm də mənim Nursultan Abişeviçlə görüşmək, danışmaq arzumdan gedir". Azərbaycan Prezidenti əlavə edir: "Biz onunla çoxdan dostuq. İndi üzərimizə böyük məsuliyyət götürdüyü bir vaxtda, əsrlərlə dostluq etmiş xalqlarımızın taleyi üçün böyük məsuliyyət daşıdığımız bir vaxtda, şübhəsiz ki, görüşlərimiz, fikir mübadiləsi aparmağımız tələb olunur. Buna görə də mən bu gün Nursultan Abişeviçlə məmnuniyyətlə görüşdüm. Biz dövlətlərarası münasibətlərimizin bir çox məsələlərinə dair fikir mübadiləsi etdik…".

**"Xalq qəzeti".-**2010.-15 dekabr.-N 275.-S.1,3.

# HEYDƏR ƏLİYEV – AZƏRBAYCANIN ATATÜRKÜ

**Nizami CƏFƏROV,**
Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri,
Milli Məclisin komitə sədri,
AMEA-nın müxbir üzvü, professor

**Azərbaycan Demokratik Cümhuriyyəti Azərbaycanın nəinki tarixi coğrafiyasına, hətta onun beşdən birinə (Azərbaycanın Şimalına) nəzarət etmək, müxtəlif etnosları bir cəmiyyət halında birləşdirmək, bütöv bir sosium formalaşdırmaq gücünə malik deyildi. O, daha çox milli dövlətçilik təfəkkürünün metaforik təzahürü idi. Azərbaycan SSR də, əslində, həmin metaforanın davamı sayıla bilər. Lakin məsələ burasındadır ki, XX əsrin ortalarında ölkədə milli dövlətçilik təfəkkürünün çiçəklənməsi üçün yenidən tarixi şərait yetişməyə başladı. Lakin simvolik funksiya daşıyan dövlət rəhbərləri respublikada həmin prosesin lazımi intensivlikdə getməsinə, milli dövlətçilik təfəkkürü olan kadrların formalaşdırılmasına diqqət yetirmədilər. Heydər Əliyevin respublikada rəhbərliyə gəlməsi ilə Azərbaycan nəinki sovet dövlətinin – mərkəzin verdiyi imkanlar daxilində, hətta müəyyən maneələri dəf edərək müstəqil düşüncəyə meydan açdı. 70-80-ci illərdə Azərbaycanda gedən milli oyanış, siyasi-ideoloji dirçəliş prosesinin nəticələri özünü 80-ci illərin sonu 90-cı illərin əvvəllərindəki xalq hərəkatında göstərdi.**

Heydər Əliyev xalqın enerjisinin, milli müstəqillik hissinin təzahürünə çalışır, onu dünyanın inkişaf etmiş xalqlarının səviyyəsinə çatdırmaq istəyirdi. Və bütün bunları böyük bir cəsarətlə, gördüyü işin düzgünlüyünə tarixi bir inamla edirdi. Əgər müqayisə aparsaq, etiraf etməli olarıq ki, Azərbaycanın dövlət rəhbərləri içərisində Heydər Əliyev qədər böyük idarəçilik təcrübəsinə (və istedadına!) malik ikinci bir şəxs olmamaşıdır. Onun imzasına 60-cı illərin sonu 70-ci illərin əvvəllərindən Azərbaycanın hər yerində, iqtisadi, ictimai-siyasi, mənəvi-ideoloji həyatın, demək olar ki, bütün sahələrində rast gəlmək mümkündür. 70-80-ci illərin Azərbaycanını ən müxtəlif baxımlardan "Heydər Əliyevin Azərbaycanı" adlandırmaq üçün hər cür əsas vardır.

Sovet dövləti dağıldıqdan sonra Azərbaycanda ən çox xatırlanan, müstəqil respublikanın dövlətçiliyini formalaşdırmağa dəvət edilən, istedadına istinad olunan şəxs Heydər Əliyev idi.

Xalq hərəkatının, müxtəlif xarakterli münaqişələrin təşkili ilə hakimiyyətə gələn qüvvələrin dövlət idarəçiliyi sahəsində təcrübəsizliyi ortaya çıxanda isə Azərbaycanın məhz "Heydər Əliyevin Azərbaycanı" olduğu bütün aydınlığı ilə təzahür etdi. Bir sıra siyasi tarix mütəxəssisləri, publisistlər 1993-cü ilin iyun "qiyam"ını Heydər Əliyevin hakimiyyətə gəlməsində xüsusi hadisə kimi təqdim edirlər. Lakin bununla razılaşmaq çətindir. Heydər Əliyevin hakimiyyətə gəlişi 90-cı illərin ilk aylarından artıq reallıq idi. Bir-birinin ardınca baş verən hadisələrin inersiyası, get-gedə güclənən xaos "ölkənin sahibi"ni tələb edirdi. Heydər Əliyevin yaratdıqları xalqın gözləri qarşısında dağıldıqca böyük dövlət qurucusuna, ictimai harmoniya ustasına meyl də güclənirdi. O, Azərbaycan xalqına yalnız bilavasitə idarəedici, dövlət qurucusu kimi yox, Tarix kimi də lazım idi. 80-ci illərin sonu 90-cı illərin əvvəllərində xalqın fəhmi ənənəvi olaraq istinad edəcəyi, üzərində yüksələcəyi Tarixi də axtarıldı. Həmin Tarixin xronologiyası Azərbaycan Xalq Cümhuriyyətindən başlasa da, cümhuriyyətin "praktika"dan deyil, "nəzəriyyə"dən ibarət olması ona əsaslanmağa imkan vermirdi.

1993-cü ilin ortalarında Azərbaycan cəmiyyəti artıq demokratiyanı hərc-mərclikdən xilas etmək uğrunda mübarizə aparmaq üçün özündə qüdrət tapdı. Bu isə birinci növbədə onda təzahür etdi ki, xalq uzun illər ərzində yetirmiş olduğu tarixi liderə inamını sonsuz bir enerji ilə ifadə etdi. Və həmin inam xırda "xalq qəhrəmanları"nın, heç bir tarixə söykənməyən siyasət fəallarının "obraz"ını ictimai təfəkkürdən bütünlüklə silib atdı. Ona görə ki, bu "qəhrəman"ları, bir daha təkrar edirik ki, tarix yox, təsadüflər, mövcud ictimai-siyasi problem ortaya çıxarmışdı. Tarix onları inkar edirdi.

…Azərbaycanı Heydər Əliyev xilas etdi. Onu bir dövlət kimi məhv olmaqdan Heydər Əliyev – qurtardı dedikdə bizim nəzərimizdə, nə qədər qüdrətli olursa-olsun, təsadüfi bir xilaskar obrazı canlanmamalıdır; Azərbaycanın qurtuluşu Heydər Əliyevin şəxsində təzahür edən böyük bir milli, ictimai-siyasi enerjinin fəaliyyəti nəticəsində mümkün ola bilərdi. Və belə də oldu… Heydər Əliyevin Azərbaycanın xilası üçün gördüyü işlərin miqyasını müəyyənləşdirmək yox, ancaq təsəvvür etmək mümkündür. Bu, epik bir miqyasdır – bu fəaliyyət xalqın yalnız bu gününü müəyyən etmir, onun gələcəyinə əhəmiyyətli təsir göstərir ki, bu mənada Azərbaycanın qurtuluşu bu günlə məhdudlaşmayan, gələcəyə getdikcə, tarixi məzmunu daha yaxşı dəyərləndiriləcək bir hadisədir.

Azərbaycanın qurtuluşunun yekunu, yaxud nəticəsi qurtuluşun Azərbaycanıdır. O Azərbaycan ki, müxtəlif nəsillərdən olan azərbaycanlılar onu arzulamış, onun qurulması uğrunda mübarizə aparmışlar. Azərbaycan respublikası Milli Məclisinin 1993-cü il 15 iyun tarixli iclasındakı çıxışında Heydər Əliyev həmin

mübarizənin tarixi mahiyyətini ifadə edərək demişdir: “Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm”. Bu sözlərin deyilməsindən o qədər də böyük zaman keçmir, lakin dahi mütəfəkkir, dövlət qurucusu həqiqətən müstəqil Azərbaycan dövlətinin əsaslarını yaratmış, onun demokratik inkişaf yolunu istiqamətləndirmişdir. Heydər Əliyevin zəkası öz nuru ilə yalnız bu gün deyil, sabah da müstəqil respublikanın gələcəyini işıqlandıracaq, ona müasir dünyanın üzvi, tərkib hissəsi olmaq üçün hər cür stimul verəcəkdir. Çünki Heydər Əliyev müdrikliyi yalnız bir insanın fərdi qabiliyyətinin nəticəsi deyil, bütövlükdə mənsub olduğumuz xalqın tarixi iradəsinin ifadəsidir. Həmin iradə idi ki, milli dəyərlərin böyük daşıyıcısına 1993-cü il 15 iyun tarixli (və tarixi!) iclasda aşağıdakıları dedirtmişdi: “… Azərbaycan Respublikası, bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcəkdir”. Bununla belə, Heydər Əliyev bildirdi ki, Azərbaycanın müstəqilliyini sadəcə elan etmək nə qədər sevindirici hal olsa da, xalqın milli “izzəti-nəfs”ini nə qədər oxşasa da, həlledici bir şey deyil. Müstəqillik uğrunda illər boyu, tədricən, həm tələsmədən, həm də gecikmədən mübarizə aparmaq, millətin daxilindəki “kimdənsə asılı olmaq” hissini, inersiyasını öldürmək lazımdır. Çünki xalq bəzən müstəqillik uğrunda “mübarizə” prosesində məhz müstəqilliyini itirir. Odur ki, qurtuluşun Azərbaycanı taleyin ixtiyarına buraxılmış bir dövlət təsəvvürü deyil. Dünyanın böyük dövlət qurucusunun, dahi mütəfəkkirin düşünüb müəyyənləşdirdiyi “ritm” üzrə hərəkət edən, get-gedə möhkəmlənən elə bir sosial-siyasi reallıqdır ki, bizim hər birimizin azərbaycanlı kimi vətəndaş xoşbəxtliyi ondan asılıdır. Və ona görə də biz çalışmalıyıq ki, Azərbaycan uzun illərdən, əsrlərdən sonra, ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, öz milli ənənələrini nümayiş etdirə bilsin.

Heydər Əliyev yaxşı bilirdi ki, “Azərbaycan on illərlə, yüz illərlə bu torpaqda yaşayan bütün insanların Vətəni olub, bundan sonra da Vətəni olmalıdır. Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq eyni hüquqa malik olmalıdır”.

Bir illik hakimiyyəti dövründə milləti yüz yerə bölənlər düşünmürdülər ki, müxtəlif etnosların, etnik maraqların önündə “reverans” edən dövlət uzun zaman yaşamaz. Və sonrakı proseslər də göstərdi ki, etnik münasibətlər sahəsində 1991-1992-ci illərdə, 1993-cü ilin birinci yarısında buraxılmış səhvlər özünü biruzə verir. Azərbaycan dövlətinin qurucusu bir neçə il məhz keçmiş səhvlərin düzəldilməsi ilə məşğul oldu. Qurtuluşun Azərbaycanı yalnız 1995-ci ildən sonra normal inkişaf yoluna düşməyə başladı ki, bunun da ilk rəsmi ifadəsi Azərbaycan Respublikasının Konstitusiyası oldu. Azərbaycan Prezidentinin bilavasitə rəhbərliyi ilə hazırlanmış Konstitusiya məhv olmaqdan xilas edilmiş, qurtulmuş Azərbaycanın “pasport”u idi.

Artıq on ildən çoxdur ki, müstəqil Azərbaycan Respublikası yaşayır, dünyanın üzvi tərkib hissəsi olmaq uğrunda mübarizə aparır. Bu mübarizənin qalibiyyətini təmin edən əsas qüvvə isə heç şübhəsiz, Heydər Əliyevin şəxsiyyətində təzahür edən milli iradə, möhtəşəm xalq ruhudur ki, Azərbaycanı hər cür iqtisadi, sosial-siyasi problemlərdən çıxararaq gələcəyə – əbədi müstəqilliyə aparır.

Dünyaya xalqlar, millətlər, insanlar arasında nizam, harmoniya yaratmaq üçün gəldiklərinə həmişə ürəkdən inanan türklər dünyanı öz iradələrinə tabe etməyə çalışmaqdan daha çox, zamanın sosial-siyasi xarakterini müəyyənləşdirməyə, qlobal proseslərin arxasınca deyil, önündə getməyə cəhd etmişlər. Türkləri qaniçən, despot kim tanıtmaq istəyən erməni tarixçiləri indiyə qədər bir dənə də olsa əhəmiyyətli fakt, sübut göstərə bilməmiş, əvəzində isə ancaq böhtançı adını əvvəlcədən özləri üçün təmin etmişlər… Türklər əsrlər, hətta min illər boyu dünyanın müxtəlif xalqları ilə sülh şəraitində yaşamış, qurduqları nəhəng imperiyalarda bütün millətlərə yer vermiş, dünyanın vaxtaşırı pozulan harmoniyasını bərpa etmək üçün böyük ideologiyalar yaratmışlar. Onlar heç bir xalqın tarixi ilə müqayisəyə gəlməyən möhtəşəm tarixlərində dünya mədəniyyətinə heç bir xalqda müşahidə olunmayan bir səviyyədə maraq göstərmişlər. Yalnız bir faktı xatırlamaq kifayətdir ki, dünyanın əsas dinlərinin, demək olar ki, hamısı – buddizm, iudaizm, xristianlıq, İslam və s. müəyyən tarixi dövrlərdə türklər tərəfindən qəbul edilmişdir.

Və türklərin, tarixləri boyu dünyaya bu cür açıq olmalarının, dünya ilə bu cür fəal (və təmənnasız) münasibətlərinin nəticəsidir ki, zaman-zaman dünya miqyaslı mütəfəkkirlər, sənətkarlar, ictimai-siyasi xadimlər, dövlət adamları yetirə bilmişlər. Türk dünyasının fəxri olan Heydər Əliyev zəmanəmizin yetirdiyi böyük türklərdən biri, bəlkə də, birincisidir…

Heydər Əliyev hər dövrü, hər mərhələsi məktəb olan, həqiqətən, qeyri-adi bir ömür yaşamış, yalnız mənsub olduğu Azərbaycan xalqının, türk xalqlarının deyil, ümumən dünya xalqlarının təsəvvüründə özünün mükəmməl obrazını, aydın cizgiləri ilə seçilən möhtəşəm portretini yaratmışdır.

…Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilməsindən bir neçə il sonra Azərbaycanın iqtisadi, ictimai-siyasi, mədəni tarixində, həqiqətən, yeni bir dövr başlandı. Bakı hələ Moskva deyildi, sovet hakimiyyəti Bakıya, deyək ki, Tbilisidən, yaxud Yerevandan çox əhəmiyyət verirdi. 1926-cı ildə Bakıda Türkoloji qurultay keçirilmişdi, burada Şərq xalqlarının məclisləri, yığıncaqları olmuşdu, buradan Şərq dünyasına tarixi yollar uzanırdı… Bakı Şərqin qapısı idi.

Heydər Əliyevin Bakıda gözlənilməyən bir sərbəstliklə respublikanı idarə etməyə başlaması nəinki Moskvada, heç Bakının özündə də rahat qarşılanmadı. Niyə? Ona görə ki, yeni dövlət başçısı gözlənilməyən bir halda neçə illərin sükunətini hərəkətə gətirdi, milləti oyatdı, türk düşüncəsini silkələdi, pozulmaqda olan ictimai əxlaqı dindirdi… Bu isə özünə möhkəm yer eləmiş, gedəni söyüb, gələni öyməklə neytrallaşdıran, müxtəlif millətlərdən ibarət məmurları təmin etmirdi; şantaja, böhtana əl atdılar, lakin bu türk o biri türklərdən deyildi…

Moskvaya gəldikdə isə… Böyük bir işə başladığını yaxşı bilən Heydər Əliyev, əvvəla, L. İ. Brejnevin şəxsində özünə möhkəm dayaq tapmışdı, ikinci tərəfdən, iqtisadiyyatı dirçəldən, "kommunizmin maddi bazası"nı hazırlayan bir respublika rəhbərinə açıq şəkildə qarşı çıxmaq üçün heç bir ciddi əsas yox idi…

Türk hökmdarlarının böyük ənənələrini davam etdirən Azərbaycan rəhbəri respublikanı nəhəng tikinti meydanına çevirdi: Bakı şəhəri görünməmiş bir sürətlə abadlaşdırıldı, Naxçıvanda, Gəncədə, Sumqayıtda, respublikanın rayon mərkəzlərində mədəniyyət evləri, məktəblər, inzibati binalar, yaşayış evləri tikildi, kanallar çəkildi, su anbarları yaradıldı və s. Heydər Əliyev bu vaxta qədər ittifaq miqyasında, demək olar ki, adı çəkilməyən respublikanı SSRİ-nin ən qabaqcıl müsəlman-türk respublikasına çevirdi; on ildən artıq müddətdə Heydər Əliyevin Azərbaycanın iqtisadi, mədəni, mənəvi yüksəlişi üçün gördüyü işləri o zaman SSRİ respublikalarından heç birinin rəhbəri görməmişdi… Heç digər görkəmli türklər D.Ə.Kunayevlə Ş.R.Rəşidov da görə bilməmişdilər… Halbuki onlara nisbətən cavan Heydər Əliyev artıq müəyyən taktiki məqsədlərlə Moskvanın gözlərini qamaşdırmaqla kifayətlənmir, mənsub olduğu millət üçün çox böyük işlər görməyə, strateji planlarını həyata keçirməyə çalışırdı.

Həmin planlardan biri, bəlkə də, birincisi xalqın özünü özünə tanıtdırmaq, onun normal etnokulturoloji həyatını bərpa etmək idi…

Heydər Əliyev Azərbaycan tarixinin ən müxtəlif problemlərinin öyrənilməsinə, milli tarixi təfəkkürün oyadılmasına xüsusi əhəmiyyət verdi, ixtisasca tarixçi olan (o, Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir) Heydər Əliyev üçün tarix yalnız "üzü keçmişə siyasət" deyildi, həm də və bəlkə də, daha çox millətin öz həqiqi keçmişini dərindən öyrənib gələcəyə hazırlıqlı getməsi üçün bir məktəb, ilham mənbəyi idi. Azərbaycan xalqının mənşəyi, formalaşması, Azərbaycan millətinin təşəkkülü kimi mühüm tarixşünaslıq problemləri məhz 70-ci illərdə bütün elmi-ideoloji kəskinliyi ilə qoyuldu, müşavirələr, müzakirələr keçirildi. Və bu gərgin axtarışlar heç bir elmi adı, alimlik dərəcəsi olmayan Heydər Əliyevin bilavasitə, yaxud dolayısı ilə rəhbərliyi altında gedir, vaxtaşırı ona məlumatlar verilirdi.

…Onun üçün tarix sosial-siyasi tarixlə məhdudlaşmırdı, Heydər Əliyev milli dil, ədəbiyyat, mədəniyyət və s. tarixinin problemləri ilə də maraqlanır, mütəxəssisləri səfərbər edirdi.

Azərbaycan ədəbiyyatının, mədəniyyətinin yalnız tarixi ilə deyil, bugünü ilə də sonsuz enerji ilə məşğul olan, Azərbaycan yazıçıları, mədəniyyət, incəsənət xadimləri ilə ardıcıl görüşən, onların qurultaylarında fəal iştirak edən respublika rəhbəri millətin yaradıcı qüvvələrini əvvəlki illərin ətalətindən çıxardı, onlarla görkəmli yazıçı, incəsənət, mədəniyyət, elm xadiminin sədası məhz respublika rəhbərinin nüfuzu sayəsində qısa bir zamanda SSRİ-nin mərkəzindən gəlməyə başladı… Yəni Azərbaycan Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə təkcə nefti, pambığı, üzümü ilə deyil, mənəvi-intellektual sərvətləri ilə də ittifaq miqyasında məşhurlaşmışdı…

Respublikanın müxtəlif rayonlarında dünya mədəniyyətindən, demək olar ki, təcrid edilmiş şəkildə yaşayan, lakin zəhmətkeş, istedadlı xalqın Azərbaycanın mərkəzi ilə əlaqələrinin genişlənməsində də Heydər Əliyevin bugünə qədər dərindən araşdırılmamış (lakin araşdırılmaya ehtiyacı olan!) mühüm xidmətləri olmuşdur, məhz bu görkəmli şəxsiyyətin, böyük dövlət xadiminin uzaqgörən siyasəti nəticəsində Bakı "beynəlmiləl" şəhərdən milli şəhərə çevrilirdi… Yeganə ümumittifaq türkologiya jurnalı da 1970-ci ildən məhz Bakıda çıxmağa başladı.

Azərbaycana rəhbərlik etdiyi illərdə yalnız Azərbaycan ictimaiyyəti deyil, ümumən sovet ictimaiyyəti gördü ki, Heydər Əliyev təkcə qorxmaz, cəsarətli, möhkəm iradəli bir rəhbər yox, həm də müdrik, ensiklopedik məlumata, güclü məntiqə malik, cəmiyyəti dərindən bilən, onu bu və ya digər məqsəd uğrunda hərəkətə səfərbər etməyi bacaran təşkilatçı dövlət xadimi, yüksək səviyyəli ideoloqdur… Belə şəxsiyyətlər L. İ. Brejnev dövründə istər Moskvada, istərsə də respublikaların rəhbərliyində çox deyildi, ölkə "rahat" yaşamağa meylli idi, tarixi problemlər, necə deyərlər, dondurulmuş, "yeni fikrin", "yeni mövqe"yin, siyasi-ideoloji axtarışların qapısı bağlanmışdı… Yaşı ötmüş, lakin təbiətən xeyirxah olan, Azərbaycana (Heydər Əliyevə!) xüsusi münasibət

bəsləyən L. İ. Brejnev ayaqları dolaşa-dolaşa dünyanın müxtəlif ölkələrini gəzir, səmimi-qəlbdən sülh istəyirdi… Lakin Moskva Əfqanıstana qoşun yeritdi və uğursuz müharibəyə başladı… L. İ. Brejnev erası başa çatır, son dövrünü yaşayan sovet dövlətinin rəhbərliyində tənəzzüldən çıxış yolları axtarılırdı. Vəziyyətin mürəkkəbliyi çoxlu suallar doğurur, axtarışlara sövq edir, müxtəlif ideyalar, mülahizələr meydana çıxırdı. Və təbii ki, müxtəlif xarakterli qüvvələri həm daxildə, həm də xaricdə fəaliyyətə, aktiv hərəkətə sövq edirdi.

…80-ci illərdə sovet dövlətinin rəhbərliyində ardıcıl dəyişikliklər getdi. Baş katiblər biri digərini əvəz edir, Siyasi Büronun tərkibi dəyişirdi. Heydər Əliyev belə bir mürəkkəb dövrdə Moskvaya çağırıldı, Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini oldu. Bu, sovet dövləti yaranandan bəri türk-müsəlman dövlət xadiminin gəlib çıxdığı ən böyük vəzifə idi… Tarixi bir qədər də geniş miqyaslı götürsək, ən geci XVII əsrdən bəri türk-slavyan-sovet dövlətinin rəhbərliyində ən yüksək vəzifə əldə etmiş türk, müsəlman idi…

80-ci illərin ortalarında artıq Heydər Əliyev sovet dövləti rəhbərliyində yalnız Azərbaycan xalqının yox, ümumən türk-müsəlman xalqlarının lideri idi, türk dünyasının həm strateji, həm də taktiki problemlərini həll etmək yalnız onun üzərinə düşürdü. Və Heydər Əliyev döyüşürdü.

…. Heydər Əliyev Azərbaycana ölkənin ümumən məhv olmaq təhlükəsi altında olduğu zaman gəldi. Və Azərbaycanı nəinki xilas etdi, onu həm də türk dünyasının qabaqcıl məmləkətlərindən birinə çevirdi. Bu gün Azərbaycan haqqında danışmaq türk dünyası barəsində, Heydər Əliyev haqqında danışmaq isə türk böyüklərindən biri barəsində bəhs etmək deməkdir. Müstəqillik əldə etmiş heç bir (digər) türk dövlətinin başçısı bu səviyyəyə ümumən türk dünyasının lideri olmaq səviyyəsinə gəlib çatmamışdır…

Zəngin dövlət idarəçiliyi təcrübəsi (və potensialı) olan Azərbaycan Prezidenti türk dünyasının birliyi üçün nə qədər böyük işlər görmüşdürsə, ondan da böyük işlər görmək gücünə, imkanlarına malikdir. Burada söhbət gözəl nəzəri fikirlər söyləməkdən, "Çinə türk bayrağı sancmaq"dan getmir, konkret, perspektivli işlərdən gedir. Azərbaycan rəhbərliyinə yenidən gəldikdən, siyasi hakimiyyət əldə edildikdən sonra Heydər Əliyevin fəaliyyətində bir sıra sahələr aydın cizgiləri ilə seçilir:

- Azərbaycanın iqtisadi, siyasi, ictimai problemlərinin həllində türk dünyasının imkanlarından istifadə etmək;
- türk dünyasının qüvvələrini birləşdirmək, hər hansı türk dövlətinin (xüsusilə beynəlxalq) problemlərinin həllində türk dünyasının birgə hərəkətini təmin etmək;
- türk dünyasının beynəlxalq nüfuzunun daha da gücləndirilməsinə çalışmaq və bunun üçün hər bir müstəqil türk dövlətinin imkanlarından yararlanmaq və s.

…Heydər Əliyevin türk dünyasının problemləri ilə daha ardıcıl məşğul olduğu mərhələ 1993-cü ildən, müstəqil Azərbaycan Respublikasının Prezidenti seçiləndən sonra başlayır. İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının 2-ci görüşünün iştirakçılarına 5 iyul 1993-cü il tarixli müraciətində Heydər Əliyev demişdi: "İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin – Türkiyənin, İranın, Pakistanın, Əfqanıstanın, Qazaxıstanın, Özbəkistanın, Türkmənistanın, Qırğızıstanın, Tacikistanın, Azərbaycanın istifadə edilməmiş zəngin təbii sərvətləri, material ehtiyatları vardır. Onlardan birgə istifadə olunması əsl müsəlman intibahına çevriləcək, bütün bəşəriyyətin inkişafına töhfə verəcəkdir"… Bu müraciətdə türklük düşüncəsinin ən azı üç tarixi əlaməti əks olunur:

1) ayrı-ayrı türk dövlətlərinin müstəqilliyinin müdafiə olunması;
2) türk (və ümumən müsəlman) dünyasının birliyinə çalışılması;
3) həmin birliyin dünyada harmoniya yaradılmasına xidmət etməsi ideyasının müdafiəsi.

…Heydər Əliyev türk birliyinin möhkəmlənib inkişaf etməsində Türkiyənin rolunu həmişə yüksək qiymətləndirmiş, Türkiyə Cümhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürkün tarixi fəaliyyətini dönə-dönə dəyərləndirmiş, onu "iyirminci əsrin bəşəriyyətə verdiyi böyük dühalardan" saymışdır.

Azərbaycan Respublikasının yaradıcısı Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin banisi Atatürk barədəki mülahizələri yalnız bir ictimai- siyasi xadim, milli dövlət qurucusunun tarixə qovuşmuş digər bir ictimai- siyasi xadim, milli dövlət qurucusu barədəki düşüncələrini öyrənmək baxımından deyil, həm də (və bəlkə də, daha çox) milli dövlət quruculuğunun ümumi təcrübəsini, metodologiyasının əsaslarını müəyyənləşdirmək baxımından böyük əhəmiyyətə malikdir. Müasir Azərbaycan dövlətinin qurucusunun "Türkiyə Cümhuriyyəti Atatürkün yalnız fəaliyyəti nəticəsində deyil, həm də qəhrəmanlığı nəticəsində yaranmışdır" sözləri eyni zamanda, zəmanəmizin Atatürkü Heydər Əliyevin tarixi xidmətini də ifadə edir. Və təsadüfi deyil ki, Azərbaycan Prezidenti böyük Atatürkün irsini öyrənmək, ideyalarını təbliğ etmək üçün xüsusi bir mərkəz-Atatürk Mərkəzi yaratmışdır ki, qısa bir müddətdə həmin Mərkəz xeyli işlər görmüşdür.

Atatürkün yaratdığı Türkiyə haqqında müxtəlif vaxtlarda deyilmiş aşağıdakı sözlərin hamısı Heydər Əliyevə məxsusdur: "Türkiyə hazırda dünyanın siyasi durumunda nüfuzlu təsir qüvvəsinə malik, ümumbəşəri dəyərləri qorumaq əzmində olan, iqtisadi və mədəni səviyyəsi etibarilə inkişaf etmiş qüdrətli dövlətlərdən birinə

çevrilmişdir…”, “Azərbaycanlıların qəlbində Türkiyənin xüsusi yeri var…”. “Türkiyə Azərbaycan üçün qardaş, dost ölkədir”. “Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin qədim və zəngin tarixi var”. “İndi Azərbaycan Respublikası bir müstəqil dövlət kimi Türkiyə Cümhuriyyəti ilə bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsinə çalışır…”. “Mən bu gün bir daha Türkiyə torpağına ayaq basmağıma, Türkiyə torpağında olmağıma görə özümü çox xoşbəxt hesab edirəm…”. “Yeni doğulmuş müstəqil Azərbaycan dövləti Türkiyənin köməyini, yardımını, qayğısını daim hiss edir”. “Hələ gənc yaşlarımda kitablardan, qəzetlərdən Türkiyə haqqında, türk xalqı haqqında oxuyarkən Türkiyəyə həmişə həsrətlə baxır, ona böyük maraq göstərir, Böyük Millət Məclisinin işi barədə, onun qəbul etdiyi qərarlar barədə məlumatları həvəslə, diqqətlə oxuyurdum”. “… Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir”. “… Türkiyə ilə Azərbaycan arasında indiyədək yaranmış əlaqələr yeni mərhələyə keçir”. “…xalqlarımız bir kökdəndir… Hətta son dövrdə ayrı düşməyimiz də bu birliyimizi əlimizdən almamışdır. İndi biz bu birliyi davam etdirmək üçün bütün imkanlara malikik…”. “Biz bir millət, iki dövlətik…”. “Burada, bu salonda kimin türkiyəli, kimin azərbaycanlı olduğunu ayırmaq mümkün deyildir…”. “Azərbaycanla Türkiyə arasındakı sədlər, sərhədlər, qadağalar, yasaqlar götürülmüşdür”… və s.

Heydər Əliyev 1994-cü ilin fevralında Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin dəvəti ilə Türkiyədə rəsmi səfərdə olarkən müxtəlif görüşlər keçirmiş, bu ölkə barəsində on illərlə ürəyində, beynində daşıdığı fikirlərinin əksəriyyətini ilk dəfə söyləmişdir…

90-cı illərin əvvəllərində hələ Naxçıvanda olarkən Heydər Əliyev Türkiyə Prezidenti Süleyman Dəmirəllə, Türkiyənin böyük ictimai-siyasi və dövlət xadimləri ilə tez-tez görüşmüş, sıx əlaqələr saxlamışdır… Müşahidələr göstərir ki, Süleyman Dəmirəl Azərbaycan Prezidentinin ən çox qiymətləndirdiyi, hətta özünə qardaş hesab etdiyi türk dövlət başçılarından, dünya ictimai-siyasi xadimlərindən biri (və bəlkə də, birincisi)dir. Heydər Əliyevin Süleyman Dəmirələ müraciətən dediyi aşağıdakı sözlər bunu bir daha sübut edir: “Türkiyə Cümhuriyyətinin beynəlxalq aləmdə xarici siyasətini aparmaqda, onu beynəlxalq təşkilatlarda təmsil etməkdə, Türkiyə Cümhuriyyətinin ilbəil Dünya birliyində layiqli yer tutmasında sizin böyük xidmətləriniz var və buna görə də siz təkcə Türkiyədə yox, yalnız türk dünyasında yox, bütün dünyada məşhur bir siyasi-ictimai xadimsiniz, dövlət xadimisiniz”.

Heydər Əliyev daha sonra demişdir: “Azərbaycan xalqının sizə xüsusi hörmət və məhəbbəti vardır. Çünki xalqımız sizi çox yaxşı tanıyır, siyasi fəaliyyətinizi, dövlət fəaliyyətinizi həmişə izləyir. Təsadüfi deyil ki, hələ “soyuq müharibə” vaxtı, Sovetlər İttifaqı ilə Türkiyə Respublikası arasında münasibətlərin gərgin olduğu bir dövrdə Azərbaycan respublikası, xalqımız Sovetlər İttifaqının tərkibində olduğu bir vaxtda – 25 il bundan öncə siz Türkiyənin baş naziri kimi Sovet İttifaqına ilk səfər etmisiniz. Moskvada, Sovetlər İttifaqının başqa şəhərlərində olmusunuz. Biz o zaman hiss etdik ki, qəlbiniz, ürəyiniz Azərbaycana da gəlməyi sizə əmr etmiş, Bakıya gəlməyi sizə tövsiyə etmişdir. Siz Bakıya, Azərbaycana gəldiniz.

Heydər Əliyev Süleyman Dəmirəli “böyük öndər Mustafa Kamal Atatürkün işinin etibarlı davamçısı kimi, onun böyük şagirdi kimi” qiymətləndirmiş, “türk dünyasının, türk dövlətlərinin bir-birinə daha yaxın olması” yolunda hələ çox işlər görəcəyinə əminliyini ifadə etmişdir…

…Heydər Əliyev görünür, Türkiyəni bir də ona görə sevmişdir ki, bütün Türk dünyasından Türkiyəyə yollar uzandığı kimi, Türkiyədən də bütün Türk dünyası görünürdü (və bu gün də görünməkdədir). Yalnız uğurları ilə deyil, həm də qüsurları, problemləri ilə… Türkiyə təkcə həmin uğurlara sevinmir, problemlərin həllinə, mübahisələrə, dedi-qodulara da səbrlə münsiflik edir.

…Heydər Əliyevin tarixi Türküstan – Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan… ilə, həmin türk regionunun dövlət xadimləri, siyasi-ictimai liderləri ilə əlaqələri sovet dövründə sıx olmuş, sovet dövlətinin süqutundan sonra isə yeni milli-ideoloji məzmun kəsb etmişdir.

Türküstan respublikaları, həmin respublikalarla Azərbaycanın çoxtərəfli əlaqələri, əməkdaşlığı və s. barədə Heydər Əliyevin, görünür, ilk proqram əhəmiyyətli fikirləri Türk dövlətləri başçılarının İstanbulda keçirilən 2-ci zirvə toplantısında söylənmişdir. … Azərbaycan Prezidentinin İstanbula yola düşərkən Bakıda, hava limanında jurnalistlərə dediyi aşağıdakı sözlər diqqəti cəlb edir: “Şübhəsiz ki, zirvə toplantısı bizim xalqlarımızın (türk xalqlarının – N.C.), müstəqil ölkələrimizin (türk dövlətlərinin – N.C.) bu günü və gələcəyi üçün əhəmiyyətli yoldur. Yəni bizim türk mənşəli, türkdilli xalqlarımızın, tarixi, milli, mənəvi ənənələri eyni və yaxud bənzər olan xalqlarımızın hər birinin müstəqil dövlət kimi mövcud olması, onların həm dövlətlərarası əlaqələrinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi, həm də bu əlaqələrdən istifadə edərək tarixi irsimizi, keçmişimizi canlandırmaq və onun əsasında xalqlarımızı daha da yaxınlaşdırmaq dünyanın indi mürəkkəb proseslər gedən bir dövründə çox mühümdür. Ona görə də mən bu görüşə böyük əhəmiyyət verirəm. Orada hansı sənədin imzalanıb-imzalanmamasından asılı olmayaraq, elə bu görüşlərin özü, fikir mübadiləsi, həmin ölkələrin prezidentlərinin ünsiyyəti bunlar hamısı respublikamızın həm iqtisadi, həm mədəni, elmi, həm də bütün başqa sahələrdə bundan sonra da bir-biri ilə sıx əlaqələr yaratması üçün imkanlar açacaqdır”… Və 2-ci

zirvə toplantısının açılışında Azərbaycan Prezidenti bu fikri daha da inkişaf etdirib demişdi: "Bizim toplantı xalqlarımızın, ölkələrimizin tarixi kökləri, əsrlər boyu toplanmış adət-ənənələrinin birliyi, dil birliyi və fəaliyyət birliyi əsasında qurulub. Bu çox böyük əsasdır. Ona görə də bu əsasda bizim ölkələr arasında bütün sahələrdə əməkdaşlığı inkişaf etdirməyə, genişləndirməyə, bütün istiqamətlərdə bu əməkdaşlığı təmin etməyə bizim böyük imkanlarımız var. Azərbaycan Respublikası belə qərara gəlib ki, bundan sonra da bu imkanlardan istifadə etsin və əməkdaşlığı genişləndirsin.

… Həmin nitqində Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin türk dövlətləri ilə əlaqələrində ümumən xarici siyasətində artıq neçə illər kölgədə qalmış bir məsələyə işıq saldı. O, ancaq dahi diplomatlara (və türk dünyasının birliyi uğrunda hər cür mücadiləyə hazır böyük türkçülərə!) xas olan bir açıqlıqla dedi: "… Ancaq bir həqiqəti də qeyd etmək istəyirəm ki, ölkələrimiz (söhbət türkdilli ölkələrdən gedir – N.C.) müstəqillik əldə edəndən sonra, iki il bundan öncə Ankarada bizim ölkələrimizin rəhbərləri toplaşıb, görüşüb birgə bəyanat qəbul edəndən sonra, ola bilər ki, Azərbaycan tərəfinin buraxdığı səhvlər nəticəsində Azərbaycan Respublikasının Qazaxıstanla, Özbəkistanla, Türkmənistanla, Qırğızıstanla əlaqələri çox zəif olub. Təxminən bir il bundan öncə, mən Azərbaycan Respublikasına başçılıq etməyə başladığım gündən bu qardaş respublikalarla əlaqələrin bərpa olunması üçün çox çalışmışam və bildirmək istəyirəm ki, bu əlaqələrin zəifləməsi və bəzən də qırılması səbəbləri ancaq Azərbaycandadır". Azərbaycan Prezidenti daha sonra dedi ki, "ona görə də Azərbaycan tərəfindən bu əlaqələrin uzun müddət zəiflədilməsinə görə də xüsusən 1992-ci ildə Ankara bəyannaməsindən sonra Azərbaycan tərəfindən bu dövlətlərlə əlaqələri inkişaf etdirmək üçün təşəbbüs göstərilmədiyinə görə mən dostlarımdan, qardaşlarımdan üzr istəyirəm və bunu etiraf edirəm. Eyni zamanda, bildirmək istəyirəm ki, Azərbaycan bu əlaqələrin gücləndirilməsinə çalışır və bundan sonra da çalışacaqdır…

Ümumiyyətlə, bir kökdən, bir mənşədən olan və adət-ənənələri bir olan xalqların, ölkələrin, dövlətlərin əməkdaşlığının böyük gələcəyi var və mən hesab edirəm ki, biz bu imkanlardan səmərəli istifadə etməliyik".

Türk dünyasının fəxri, yaxud böyük türklərdən biri Heydər Əliyevin portretini böyük şəxsiyyətin aşağıdakı sözləri tamamlayır: "Özünün yeni yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır. İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqları yeni dünyanın mühüm amillərindən birinə çevrilməkdədir".

**"Xalq qəzeti".-**2010.-28 dekabr.-N 286.-S.3.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN FOLKLORU

**Məhərrəm QASIMLI -** professor

Milli-mənəvi varlığımızın daşınmasında bənzərsiz və təkrarsız yeri olan folklor mədəniyyətimiz xalqımıza məxsus tarixi-mental keyfiyyətlərin, etnopsixologiyanın, fəlsəfi-estetik dünyaduyumun, əxlaqi dəyərlər sisteminin ana qaynağıdır. Xalqımızın əsrlər boyu yaradıb yaşatdığı zəngin milli-mənəvi sərvətlərin qorunub saxlanılması və dəyərləndirilməsi istiqamətində müxtəlif zamanlarda çeşidli tədbirlər həyata keçirilsə də, bu sahədə sistemli və irimiqyaslı fəaliyyətə iyirminci yüzillikdə daha çox diqqət yetirilməyə başlanılmışdır.

Sovet hakimiyyətinin ilk onilliklərində sadə, zəhmətkeş xalqa məxsus mənəvi mədəniyyətin əsas göstəricisi kimi şifahi xalq ədəbiyyatının toplanması, nəşri və tədqiqi işinə xüsusi əhəmiyyət verilsə də, bu, daha çox mövcud ideoloji sistemə xidmət məqsədi daşımışdır. Belə ki, marksist-leninçi ideologiyaya uyğun olaraq folklora sinfi yanaşma metodu tətbiq edilmiş, istismarçı siniflərin ifşası, əzilən sadə, zəhmətkeş xalqın onlara kin və nifrəti, eləcə də mübarizəsi həm nəşr, həm də tədqiq işlərində ön plana çəkilmişdir. Türk-islam dəyərlərini, xalqın gerçək milli-tarixi yaddaşını əks etdirən folklor örnəkləri üzərinə isə yasaq qoyulmuşdur. Məhz buna görə də "Kitabi-Dədə Qorqud" başda olmaqla qədim türk eposunun bütün şah əsərləri, Novruz bayramı kimi dərin fəlsəfi məzmuna malik etnoqrafik mərasim, eləcə də Qurban, Ramazan bayramlarında inikas olunmuş bəşəri-humanist dəyərlər "proletar mədəniyyətinin" tələblərinə cavab verməyən yabançı, zərərli ünsürlər sayılmışdır. Bu proses bir çox görkəmli ziyalıların, dəyərli elm adamlarının, folklor-etnoqrafiya irsimizin fədakar, qeyrətkeş araşdırıcılarının taleyində faciəvi iz buraxmış, onların böyük əksəriyyəti otuz-qırxıncı illərdə repressiya qurbanına çevrilmişlər.

Əsrin ikinci yarısının əvvəllərində Sovetlər İttifaqında gedən siyasi mülayimləşmə mənəvi həyatın bu sahəsindəki gərgin havanın yumşalmasına müəyyən qədər təsir göstərsə də, folklora münasibətin sinfi yanaşma mövqeyindən milli yanaşma müstəvisi üzərinə keçməsi altmışıncı illərin sonlarına, yetmişinci illərin əvvəllərinə qədər uzandı. 1969-cu ildə baş verən tarixi dəyişiklik - Heydər Əliyevin Azərbaycan Respublikasının siyasi rəhbəri vəzifəsinə gəlməsi bir çox başqa sahələrlə yanaşı, mənəvi-humanitar istiqamətin, o cümlədən də milli mədəniyyətimizlə bağlı elmi və mədəni-təşkilati fəaliyyətin canlanmasına səbəb oldu. Memarlıq, xalçaçılıq, xalq musiqisi, folklor və etnoqrafiya kimi ən müxtəlif istiqamətləri cəmləşdirən milli-mənəvi dəyərlər kompleksi xatırlanan mərhələdən etibarən əlahiddə bir qayğı və diqqətlə əhatələnməyə başladı. Yetmişinci illərdə Heydər Əliyevin müdrik və uzaqgörən bir rəhbər kimi Azərbaycanda yeritdiyi siyasətin tərkibində xüsusi yer tutan humanitar istiqamət məhz belə bir iqlimin yaranmasına səbəb olmuşdur. Onun xalqımızın tarixi keçmişinə, klassik ədəbi qaynaqlarına, ana dilinə, milli-mənəvi sərvətlərinə həssas və qayğıkeş münasibəti bu sahənin öyrənilməsi, qorunub yaşadılması işinə güclü təkan verdi. Sözügedən illərdən başlayaraq milli ruhun güclənməsi, vətənçilik, azərbaycançılıq ideyalarının qüvvətlənməsi nəzərəçarpacaq bir dalğalanma yaratdı. Heydər Əliyevin siyasi himayədarlığı və öndərliyi ilə həyata keçirilən bu ilkin tərpəniş uzunmüddətli bir mübarizə və mücadilənin əsasını qoyaraq, öncə Azərbaycan ziyalılarını, daha sonra isə bütün xalqı strateji məqsədlər üçün səfərbər etdi.

Yüzillərin qan yaddaşını daşıyıb gətirən tarixi-mənəvi dəyərlərə, o sıradan folklor qaynaqlarına göstərilən qayğı və diqqət bütün Azərbaycan miqyasında özünütanıma, özünüdərk və özünəqayıdış proseslərini hərəkətə gətirdi. Əvvəlki onilliklər üçün yasaq olan "Dədə Qorqud", "Oğuz", "Oğuz yurdu", "Ozan", "Türk mədəniyyəti", "Qan yaddaşı" anlayışları respublikada yaranmış münbit zəmindən nəşət taparaq, elmi toplantılarda, ədəbi-mədəni yığıncaqlarda, kitablarda, mətbuatda, radio-televiziya verilişlərində boy göstərdi. Mənəvi yaddaşın və milli özümlülüyün bərpası İçərişəhər, Şuşa, Ordubad, Gəncə memarlıq komplekslərinin milli qoruq elan edilməsindən, qədim xalçaların muzey-qoruğa ("Xalça muzeyi"nə) cəmləşdirilməsindən, sazı-sözü, muğam sənətini, xalq mahnıları və rəqs-oyun mədəniyyətimizi himayə edən rəsmi qurumların (Azərbaycan Aşıqlar Birliyi, "Aşıq Pəri Məclisi", "İrs", "Atəşgah", "Gülüstan", "Yallı" və s. kimi məşhur xalq kollektivləri, "Muğam teatrı", "Dastan teatrı" , "Ozan-Aşıq Muzeyi") yaradılmasından, kütləvi folklor nəşrlərindən, folklorun geniş miqyasda təbliğindən (folklor festivalları, saz bayramları, "Bulaq" və "Ozan" verilişləri, qəzet və jurnallarda folklor səhifələri) başladı və az sonra öz uğurlu nəticələrini göstərdi.

Artıq yetmişinci illərin ortalarından soykökə, milli kimlik məsələlərinə, tarixi qaynaqlarla bağlı problemlərə təkcə alim, müəllim və tələbələrə məxsus ixtisas auditoriyalarının yox, bütün ziyalı təbəqələrinin, o cümlədən gənclərin xüsusi həssaslıq göstərdiyi duyulmaqdaydı. Təkcə belə bir faktı xatırlatmaq kifayətdir ki, 1978-ci ildə akademik Həmid Araslının nəşrə hazırladığı "Kitabi-Dədə Qorqud" kitabı böyük tirajla çapdan çıxdıqdan az sonra sürətlə satılıb qurtarmışdı. Eyni sözləri həmin illərin digər elmi və kütləvi folklor nəşrləri ("Koroğlu", "Azərbaycan dastanları", "Aşıq Ələsgər" və s.) haqqında da söyləmək mümkündür. Kütləvi

informasiya vasitələrində folklor irsimizin təbliğinin xalq tərəfindən böyük maraq və rəğbətlə qarşılanması o illərdə radio və telepoçta gələn məktubların sayından da görünməkdədir. Belə ki, 1975-ci ildə radionun "Bulaq" verilişinin ünvanına həftə ərzində 100-150 məktub daxil olmuşdur. 1979-cu ildə "Ozan" verilişinin həftəlik poçtu daha yüksək göstərici (150-200 məktub) nümayiş etdirmişdir (bu materiallar indi Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun Arxivində saxlanılır).

"Ədəbiyyat və incəsənət", "Sovet kəndi", "Azərbaycan gəncləri" qəzetlərinin, "Azərbaycan", "Qobustan", "Ulduz", "Kənd həyatı" jurnallarının poçtunda da xalq yaradıcılığı ilə bağlı materiallar xeyli yer almışdır. Bütün bunlar yetmişinci illərdə folklor işinə ümumxalq miqyasında həssaslığın səviyyəsini müəyyənləşdirmək baxımından böyük tarixi-mədəni əhəmiyyətə malikdir.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dönəmində (1969-1982) folklorun təbliği, nəşri və tədqiqi istiqamətində həyata keçirilən irimiqyaslı tədbirlər bır qayda olaraq onun şəxsi təşəbbüsü, birbaşa sərəncamı və qayğısı sayəsində mümkün olmuşdur. Həmin illər bir tərəfdən sistemli və sanballı folklor nəşrlərinin vüsət alması ilə səciyyəvidirsə, başqa bir tərəfdən də xalq yaradıcılığı ilə bağlı təşkilati tədbirlərin - aşıqların qurultaylarının çağırılması, "Koroğluya qayıdaq" rubrikası altında Respublika Sarayında (indiki Heydər Əliyev adına sarayda) silsilə ozan-aşıq tədbirlərinin, dastan axşamlarının təşkil edilməsi, böyük xalq sənətkarlarının yubileylərinin keçirilməsi, xalq istedadlarını üzə çıxaran folklor festivallarının, sonralar ənənə halını alan və Azərbaycan musiqi mədəniyyətinə bir çox istedadlar bəxş edən məşhur "Xan bülbül" müsabiqələrinin təşkil edilməsi və s. ilə əlamətdardır.

Azərbaycan Respublikasının mədəni həyatında mühüm hadisəyə çevrilən həmin tədbirlərin böyük əksəriyyətində Heydər Əliyev vaxt taparaq özü şəxsən iştirak etmiş, milli-mənəvi dəyərləri yüksək qiymətləndirən ürək sözlərini söyləmiş, xeyir-duasını vermişdir. Şübhəsiz ki, respublikanın başında duran birinci şəxsin belə bir mövqe nümayiş etdirməsi həm bu tədbirlərin təşkilatçı və iştirakçılarını, həm də sözün geniş mənasında xalqı ruhlandıraraq milli-mənəvi dəyərlərimizə qarşı həssaslığı gücləndirmişdir. O illərdə respublika rəhbəri tərəfindən "Xalqın istedadı, onun yaradıcılıq dühası "Kitabi-Dədə Qorqud", "Koroğlu" və başqa epik əsərlərdə bütün dolğunluğu ilə təcəssüm tapmışdır" - fikrinin söylənilməsi heç də təsadüfi deyildi. Heydər Əliyevin söylədiyi bu və bu qəbildən olan digər istiqamətverici mülahizələr elm və sənət adamlarını milli-mənəvi dəyərlərin öyrənilməsi, qorunması və böyüməkdə olan gənc nəslə mənimsədilməsi işinə yönəldirdi. Həmin illərdən başlayaraq folklor problematikası elm və bədii yaradıcılıq təşkilatlarının fəaliyyətində aktiv şəkildə gündəmə daxil oldu. Elə buna görə də o vaxtdan etibarən elmi idarə və tədris müəssisələrində türk mifologiyası və qədim türk epos mədəniyyəti, xüsusən də "Kitabi-Dədə Qorqud"la bağlı elmi müzakirələr keçirilməyə başlandı, problematik məqalələrdən ibarət toplular nəşr edildi, eposun elmi-tənqidi mətninin hazırlanması ilə əlaqədar vacib elmi-nəzəri işlər görüldü. H. Araslı, M.H. Təhmasib, M. Seyidov, F. Zeynalov, T. Hacıyev, S. Əlizadə, Ş. Cəmşidov, E. Əlibəyzadə, B. Abdulla və başqa tədqiqatçıların bu sahədəki elmi fəaliyyəti gücləndi. Azərbaycan folklorşünaslığının ən mötəbər tədqiqatçılarından olan M.H. Təhmasibin "Azərbaycan xalq dastanları (orta əsrlər)" (Bakı, Elm, 1972) adlı sanballı monoqrafiyası da bu dövrün məhsulu oldu. Həmin illərdə "Qobustan", "Azərbaycan", "Ulduz" jurnallarında, "Azərbaycan filologiyası", "Filologiya məsələləri" məcmuələrində türk mifoloji düşüncə sistemi, tarixi-etnik yaddaş, soykökə qayıdış, milli kimlik probleminin folklor və etnoqrafiya mədəniyyətimizdə inikası məsələlərinə həsr olunmuş çoxsaylı məqalələrin ardıcıl şəkildə çap olunması da elmi-mədəni həyatın milli ovqatını əks etdirirdi.

Yetmişinci illərdən start götürən Dədə Qorqud hərəkatı qarşıdan gələn onilliklərin Qorqud elmi məkanına çevrilməsini təmin edə bildi: Azərbaycan qorqudşünaslığı bir-birinin ardınca abidənin kamil mətnlərini nəşr etdi, Dədə Qorqudla bağlı sistemli araşdırmalar ortaya çıxdı. Qorqudşünaslığın ən nüfuzlu elmi toplantıları təkcə keçmiş Sovetlər İttifaqı miqyasında deyil, beynəlxalq səviyyədə də Azərbaycanda mərkəzləşdi.

Qorqudçuluq təkcə elm-təhsil sistemi ilə çərçivələnmədi. Yazıçılar, rəssamlar, heykəltəraşlar, kinematoqrafçılar Dədə Qorqud mövzu və motivlərinə üz tutdular. Anarın ssenari müəllifi olduğu "Dədə Qorqud" filmi bu sahədə ən böyük uğurlardan biri oldu. Azərbaycan hüdudlarından çox-çox uzaqlarda da böyük şöhrət tapan bu gözəl kino əsəri Qorqud obrazının və eposdakı vətənpərvərlik, qəhrəmanlıq, bahadırlıq ideyalarının təbliğində ölçüyəgəlməz dərəcədə böyük rol oynadı. Qorqud ruhunun, Qorqud ideyalarının, oğuz mənəvi-estetik dünyasının yenidən xalqa mənimsədilməsində "Dədə Qorqud" filmi ilə yanaşı, M. Abdullayev, F. Əliyev, M. Avşar və başqa tanınmış rəssamların Dədə Qorqud motivləri əsasında çəkdikləri silsilə rəsm əsərləri, xalça ustalarının hazırladıqları Qorqud xalçaları, çağdaş heykəltəraşlıqda yer alan çeşidli Qorqud motivləri də əhəmiyyətli iş gördü. Qorqud ruhuna qayıdış İ. Şıxlı, Ə. Cəfərzadə, İ. Hüseynov, Anar, Elçin, Ə. Əylisli, M. Süleymanlı, F. Kərimzadə, Ə. Muğanlı, S. Oğuz, V. Nəsib, M. Oruc kimi yazıçıların yaradıcılıq axtarışlarında öz əksini tapdı: onların qələmə aldıqları müxtəlif səpkili nəsr əsərlərinin dil və üslub

keyfiyyətlərində "Kitabi-Dədə Qorqud" eposuna məxsus poetik-üslubi maneralar, bədii-estetik cizgilər qabarıq yer aldı. R. Rza, O. Sanvəlli, H. Arif, B. Vahabzadə, N. Xəzri, X.R. Ulutürk, M. Araz, M. Günər, M. İsmayıl, M. Yaqub, N. Həsənzadə, S. Rüstəmxanlı, Dilsuz, A. Abdullazadə kimi istedadlı şairlərin şeirlərində Qorqud motiv və obrazları milli-tarixi özümlüyün poetik ifadəsinə çevrildi.

Azərbaycan Respublikasının ədəbi-mədəni həyatındakı bu canlanma Cənubi Azərbaycanın mənəvi həyatına da öz müsbət təsirini göstərdi. M. Şəhriyar, B. Səhənd, S. Behrəngi, Savalan, Sönməz və başqa istedadlı qələm sahiblərinin yaradıcılığında folklor, Dədə Qorqud ruhu ön plana çıxdı. B. Səhəndin "Dədəmin öyüdü" poeması sırf Dədə Qorqud mövzusuna həsr olunmuş milli ruhlu bir əsər kimi böyük şöhrət qazandı. Gör kəmli şair sonralar bu istiqamətdəki bədii axtarışlarını davam etdirərək "Kitabi-Dədə Qorqud" boylarının hər birini ayrı-ayrılıqda nəzmə çəkdi və "Dədəmin kitabı" adlı gözəl bir folklor poemasını qorqudsevərlərə ərməğan etdi. 1979-cu ildə Doktor Cavad Heyətin naşirliyi ilə Cənubi Azərbaycanda işıq üzü görən "Varlıq" dərgisinin səhifələrində də "Dədə Qorqud" mövzusu, eləcə də Azərbaycan folklor mədəniyyəti məsələləri qabarıq yer aldı.

Bütün bunlar elm və sənət aləminin Qorqudla - xalqın folklor yaddaşı, soykökü, milli varlıq dünyası ilə nəfəs aldığının, yaşadığının əyani təzahürü idi. Tarixi keçmişə, folklor-etnoqrafiya qaynaqlarına, milli-mənəvi sərvətlərə qayıdış və bağlılıq xalqı oyanışa, milli istiqlal, azadlıq mübarizəsinə hazırlamaqda misilsiz iş gördü və bu qarşısıalınmaz milli-tarixi proses bir müddət sonra özünün layiqli bəhrəsini verdi. Səksəninci illərdə azadlıq hərəkatının xüsusi bir vüsətlə dalğalanmasında, doxsanıncı illərin əvvəllərində milli istiqlal mücadiləsi və Vətən torpaqlarının bölünməzliyi, bütövlüyü uğrunda mübarizə prosesində "Qorqud" və qorqudçuluğun müstəsna mənəvi dəstəyi oldu.

Müstəqilliyin ilk illərindən başlayaraq Azərbaycan dövlətçiliyi bu möhtəşəm milli-mənəvi dəyəri diqqət önündə saxladı. Bu mənada 1996-cı ildə Xəzər dənizində müstəqil Azərbaycanın ilk nəhəng üzən qazma qurğusunun "Dədə Qorqud" adıyla fəaliyyətə başlaması da çox təbii göründü. Nəhəng qurğunun açılışında iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev öz çıxışında "Dədə Qorqud" adının tarixi simvolikasında yer alan müdriklik və uzaqgörənlik anlamlarını xüsusi vurğuladı. Ən nəhayət, bütün bunların məntiqi nəticəsi kimi 1997-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyinin qeyd olunması barədə tarixi fərman imzaladı.

"Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyinin YUNESKO tərəfindən dünya miqyasında keçirilməsi təşəbbüsünü də Azərbaycan Respublikası adından Prezident Heydər Əliyev qaldırdı və az sonra YUNESKO yubileylə bağlı təklifi qəbul etdi. Dədə Qorqud Yubiley Komissiyasının sədri Heydər Əliyev cənablarının rəhbərliyi ilə 1300 illik yubileyin yüksək səviyyədə keçirilməsi üçün mütəmadi şəkildə sistemli və ardıcıl iş aparıldı.

Geniş miqyaslı hazırlıq işlərinin gedişatına xüsusi diqqət və həssaslıqla yanaşan Heydər Əliyev bir neçə dəfə mütəxəssislər və uyğun sahə rəhbərlərinin də iştirakı ilə Yubiley Komissiyasının işgüzar iclasmı çağıraraq, yubileyin yüksək səviyyədə təşkili üçün lazımi tövsiyə və tapşırıqlar verdi. İki əsr və iki minilliyin qovşağında - 2000-ci ildə keçirilən "Dədə Qorqud-1300" təntənəli yubileyi Heydər Əliyevin siyasi öndərliyi ilə Azərbaycanın beynəlxalq miqyasda gerçəkləşdirdiyi uğurlu elmi-mədəni tədbirlər silsiləsində öz ləyaqətli yerini aldı. Bu təntənəli yubiley münasibəti ilə "Kitabi-Dədə Qorqud" eposunun təkmilləşdirilmiş elmi-tənqidi mətni və müxtəlif dillərə (rus, ingilis, alman, gürcü, eston, litva, qazax, yapon və s.) tərcümələri, bu ölməz folklor abidəsi haqqında Azərbaycan və xarici ölkə alimlərinin hazırladıqları tədqiqat əsərləri, Dədə Qorqud mövzusuna həsr olunmuş rəsm, xalça və heykəltəraşlıq işləri, teatr, kino və musiqi əsərləri ictimaiyyətə çatdırıldı. Azərbaycan Milli Elmlər Akademiyasının müxtəlif institutlarında, universitetlərdə, tədris müəssisələrində, elmi-mədəni mərkəzlərdə "Kitabi-Dədə Qorqud" dastanının tədqiq və təbliği məqsədi ilə keçirilən konfrans və simpoziumlar eposun geniş miqyasda tanıdılmasında mühüm rol oynadı. Elmi istiqamətdə zirvə toplantısı olan "Dədə Qorqud-1300" Beynəlxalq Elmi Simpoziumu da öz missiyasını uğurla yerinə yetirdi. Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universitetində "Qorqudşünaslıq" elmi laboratoriyaları yaradıldı. "Dədə Qorqud" elmi jurnalı fəaliyyətə başladı. Ulu öndərin xeyir-duası, Ön sözü ilə açılan iki clddən ibarət "Kitabi-Dədə Qorqud ensiklopediyası" yubileyə və bütövlükdə qorqudşünaslığa böyük töhfə oldu: son illərdə müstəqilliyin imkanlarından istifadə edərək tariximizi təhlil etmək, ədəbiyyatımızı, mədəniyyətimizi yenidən dərk etmək və dünyaya nümayiş etdirmək sahəsində çox işlər görülmüşdür. Sözsüz ki, bu istiqamətdə bundan belə də qarşımızda duran mühüm problemlər çoxdur və ümidvaram ki, biz onları həll edə biləcəyik. Bu genişmiqyaslı planların mərhələ-mərhələ gerçəkləşdirilməsi Azərbaycanın müstəqil dövlət kimi daha yaxşı tanınmasına kömək edəcəkdir. Əlbəttə ki, "Kitabi Dədə Qorqud" ensiklopediyasının nəşri də həmin ali məqsədə xidmət edən bir amil olacaqdır.

Ümummilli liderimiz Heydər Əliyevin mədəniyyətimizin tarixi köklərinə, o cümlədən də folklor qaynaqlarımıza həssas, diqqətcil münasibəti "Kitabi-Dədə Qorqud" eposu ilə bağlı fikir və mülahizələrində də

özün əyani şəkildə göstərir. Ulu öndərin "milli varlığımızın mötəbər qaynağı adlandırdığı "Kitabi-Dədə Qorqud" eposuna böyük ehtiram və məhəbbətlə yanaşması təbii bir qanunauyğunluqdan doğurdu: bu möhtəşəm folklor abidəsində öz inikasını tapmış milli-mənəvi dəyərlər xalqımızın tarixi kimliyini qürurverici bir görüntü ilə əks etdirdiyindən müstəqil Azərbaycan dövlətçiliyi baxımından dünəni, bu günü və sabahı çevrələyən bütün zamanlar üçün böyük siyasi-ideoloji əhəmiyyətə malikdir: "Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyim tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Keçid dövrünün çətinliklərinə, ağır proseslərinə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə aça bilmiş və xalqa göstərməyə nail olmuşuq. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir" *(Kitabi-Dədə Qorqud ensiklopediyası. I cild. Bakı, 2000, s. 6).*

Məhz dövlətçilik düşüncəsi kontekstində yanaşma və dəyərləndirmə nəticəsində Heydər Əliyev dünyası "Kitabi-Dədə Qorqud"un bir qəhrəmanlıq eposu olaraq əsas mahiyyətində duran alp-ərənlik, cəngavərlik motivini yeni, özünəməxsus biçimdə şərh edib mənalandırdı: "Kitabi-Dədə Qorqud" qəhrəmanlıq eposudur, özü də bir cəngavər, bir igid haqqında yox, bütöv bir xalqın qəhrəmanlığını özündə cəmləşdirən bir eposdur. Onun ən böyük ideyası baş sərkərdədən tutmuş böyükdən kiçiyə kimi bütün qəhrəmanlarının doğma torpaqlarını qorumaq uğrunda canlarından keçməyə daim hazır olduqlarını göstərməkdir" *(Yenə orada, s.6).*

Eposun əsas mahiyyətini təşkil edən qəhrəmanlığın igidlik, bahadırlıq motivi və ya cəngavərlik şücaəti hüdudundan daha geniş bir miqyası - ideologiya səviyyəsi və səciyyəsi kəsb etməsi məsələsi də ulu öndər tərəfindən dahiyanə uzaqgörənliklə müəyyənləşdirilmişdir: "Eposun əsas mahiyyətini qəhrəmanlıq ideologiyası təşkil edir. Ölkəmizin yaşadığı bugünkü mərhələdə xalqımızın qarşısında duran ən ümdə problemlərin həlli, o cümlədən respublikanın suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün qorunması baxımından müasir Azərbaycan Respublikası vətəndaşlarının bu qəhrəmanlıq ideologiyasından faydalanmasının nə dərəcədə vacib olduğu gün kimi aydındır" *(Yenə orada, s.6).*

Göründüyü kimi, "Kitabi-Dədə Qorqud" eposunda qəhrəmanlığın bir ideoloji sistem olması müstəqil Azərbaycan dövlətçiliyini, onun ərazi bütövlüyünü qorumaq uğrunda Azərbaycan xalqı, ölkəmizin hər bir vətəndaşı qarşısında duran çağdaş vəzifələrlə üzvi şəkildə əlaqələndirilir, həmin kontekst fonunda tarix və müasirliyin vəhdəti yaradılır. Heydər Əliyevin milli dövlətçilik konsepsiyası da "Dədə Qorqud" eposundakı dəyərlər sistemi arasındakı doğmalıqdan irəli gələn bu dəyərləndirmələr xalqımız, dövlətimiz qarşısında duran taleyüklü problemlərin həlli yollarının göstərməklə yanaşı, milli-strateji istiqamətləri də aydınlaşdırır.

"Dədə Qorqud"u sözün geniş mənasında "xalq kitabı" statusunda görən Heydər Əliyev abidəni böyük qürur hissi ilə xalqımızın əxlaq kodeksi sayır, Dədə Qorqud öyüdlərinin didaktik-nəsihətamiz səciyyəsinin bu günümüzlə yaxından səsləşdiyinə xüsusi diqqət yetirərək, həmin davranış etiketlərinin milli mənəviyyatımızın formalaşmasındakı tarixi rolunu müdrik uzaqgörənliklə açıqlayırdı. Bu səbəbdən də, onun müdrik qənaətinə görə, xalqımıza məxsus milli-mental keyfiyyətlərin biçimlənməsi və qorunub bu günlərə daşınmasında "Kitabi-Dədə Qorqud" boylarında öz əksini tapmış ailə dəyərləri, tayfadaxili ünsiyyət formaları, davranış normalan münbit tarixi zəmin olduğundan, soykökümüzün həmin keyfiyyətlərinə milli varlığımızın ayrılmaz tərkib hissəsi kimi yanaşılması olduqca vacib və zəruridir: "Kitabi-Dədə Qorqud" həm də bizim etika kitabımız, əxlaq kodeksimizdir. Böyüyə hörmət, ata-anaya məhəbbət iman və etiqad, namus və qeyrət, ailəyə, torpağa, vətəninə sədaqət - bu insani keyfiyyətlər, mənəvi məziyyətlər Qorqud övladlarının qanına an; südü ilə, ata nəfəsi ilə birlikdə daxil olur və son mənzilə qədər də onlarla birlikdə gedir. Dədə Qorqud dünyasındakı milli dəyərlər, stereotiplər, rituallar sistemi əslində hər bir azərbaycanlının mentalitetində milli v ümumbəşəri dəyərlərin yerinin müəyyənləşdirilməsi də Dədə Qorqudu etik prinsiplərindən çıxış etməklə gerçəkləşir" *(Yenə orada, s.6).*

Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" dastanlarına verdiyi tarixi dəyərləndirmə, sözün əsil mənasında, konseptual yanaşmadır. Bütün məqam və nüanslarında kifayət qədər dərin və mükəmməl akademizm mövcud olduğu bu konseptual yanaşmada eposun həm ideoloq siyasətçi, həm tarixçi, həm dilçi, həm filosof, həm də folklorşünas etnoqraf kimi professional elmi qiyməti verilmişdir. Məhz Heydər Əliyev kimi mütəfəkkir şəxsiyyət belə bir tarixi dəyərləndirmə verə bilmək qüdrətinə sahib idi.

Heydər Əliyevin Azərbaycan folkloruna xüsusi diqqət göstərməsinin parlaq təzahürü onun milli-mənəvi dəyərlərimizin unikal daşıyıcı yaşadıcıları olan el sənətkarlarına - aşıqlara, el şairlərinə, sinədəftər s bilicilərinə, istedadlı folklor ifaçılarına qayğıkeş münasibətində də ifadəsini tapırdı. Tarixi keçmişimizə, əsrlərin daş sınağından keçib gələn saz-söz qaynaqlarımıza, xalqımızın tarixin müxtəlif mərhələlərində yetişdirdiyi ustad sənətkarlara həqiqi qədirbilənliklə yanaşdığındandı ki, onun təşəbbüsü və sərəncamı ilə böyük xalq ozanlarımız Aşıq Ələsgərin 150 illik (1972-ci il), Aşıq Alının 180 illik (1981-ci il) yubileyləri böyük təntənə ilə, ümumxalq bayramı səviyyəsində qeyd olunmuşdur.

1972-ci ildə Heydər Əliyevin qeyri-adi təşkilatçılıq bacarığı və həm də böyük siyasi nüfuzu sayəsində Aşıq Ələsgərin 150 illik yubiley tədbiri Bakı ilə yanaşı, Moskvada da ən yüksək səviyyədə keçirildi. İstər Bakıda, istərsə də Moskvada keçirilmiş Aşıq Ələsgər yubileyinə keçmiş Sovetlər Birliyinin bütün respublikalarında ən tanınmış elm, mədəniyyət və incəsənət xadimləri toplanmışdılar. Müxtəlif millətlərdən olan natiqlər Kremlin Qurultaylar Sarayında Aşıq Ələsgərin timsalında Azərbaycan saz-söz sənətinin ecazkar qüdrətindən söz açdılar. Yubiley tədbirlərinin İttifaq miqyasındakı böyük əks-sədası o vaxt hətta ermənləri də Aşıq Ələsgərin 150 illiyini qeyd etmək məcburiyyəti qarşısında qoydu: Ermənistan SSR ərazisində olan Göyçə mahalında - Aşıq Ələsgərin vətəni Ağkilsə kəndində böyük sənətkarın əzəmətli qəbirüstü abidəsi ucaldıldı. Bu, həmin dövrdə Heydər Əliyev nüfuzunun sayəsində əldə edilmiş parlaq bir nailiyyət idi. Qüdrətli söz ustadının poetik irsini cəmləşdirən "Aşıq Ələsgər" *(Elm, 1972; 1973)* ikicildliyinin Elmlər Akademiyası tərəfindən hazırlanıb nəşr edilməsi, aşığın seçmə şeirlərinin SSRİ xalqlarının dillərinə tərcümə edilməsi yubileyin uğurlu nəticəsi idi.

Qədirbilən rəhbər iyirmi beş il sonra böyük xalq ozanımız Aşıq Ələsgərin 175 illik yubileyinin keçirilməsi ilə bağlı növbəti sərəncam (1996) imzaladı. Aşıq Ələsgər sənətinə, Aşıq Ələsgər ruhuna ürəkdən gələn sonsuz hörmət və ehtiram ifadə edən 175 illik yubiley tədbiri bütövlükdə Azərbaycan saz-sözünün bayramı kimi yüksək təntənə ilə qeyd olundu. Ustad sənətkarın poetik irsinin külliyyat şəklində gerçəkləşdirilməsi imkanını da sözügedən yubiley sərəncamı reallığa çevirdi. 1999-cu ildə buraxılmış "Aşıq Ələsgər, Əsərləri külliyatı" (hazırlayan İ.Ələsgər) böyük el aşığının yaradıcılığını cəmləşdirən ən mükəmməl nəşr oldu,

2001-ci ildə isə dövlət başçımızın sərəncamı əsasında Aşıq Ələsgərin 180 illiyi təntənə ilə qeyd olundu. Aşığın adının əbədiləşdirilməsi, poetik irsinin tədqiq və təbliği istiqamətində irimiqyaslı iş aparıldı.

1981-ci ildə Aşıq Alının 180 illik yubileyinin respublikamızda təntənə ilə qeyd olunması da Heydər Əliyevin şəxsi təşəbbüsünün nəticəsi idi. Məhz həmin yubiley qərarından sonra Aşıq Alının poetik irsinin toplanılması, nəşri və təbliği sahəsində geniş miqyaslı elmi-təcrübi işlər aparılmış, böyük el sənətkarının yaratmış olduğu bənzərsiz və zərif söz inciləri itib-batmaqdan qorunmuşdur.

Yetmiş-səksəninci illərdə istedadlı el sənətkarlarının yaradıcılıq və ifaçılıq sahəsində qazandıqları uğur və nailiyyətlərə görə bir çox dövlət təltiflərinə layiq görülməsi də Heydər Əliyevin xalq yaradıcılığına, folklora qayğıkeş münasibətinin əyani ifadəsi olmuşdur. Həmin illərdə tanınmış el sənətkarları Aşıq Hüseyn Cavan, Aşıq Şəmşir Qocayev, Aşıq Şakir Hacıyev, Aşıq Əkbər Cəfərov, Aşıq Ədalət Nəsibov, Aşıq Pənah Pənahov və Aşıq İmran Həsənov "Əməkdar incəsənət xadimi", musiqi folklorunun əvəzsiz ifaçıları olan İzzətalı Zülfüqarov, Ələsgər Şəkili və Əli Kərimov isə "Azərbaycanın əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görüldülər. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bu ənənə müstəqillik illərində də davam etdirildi. Ədalət Nəsibov, İsfəndiyar Rüstəmov kimi qocaman ustadlara fəxri Prezident təqaüdünün verilməsi, Aşıq Əhliman Rəhimov və Ədalət Dəlidağlının "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülməsi buna sübutdur.

İstedadlı saz-söz ifaçıları və folklor kollektivləri ötən əsrin yetmiş-səksəninci illərində Heydər Əliyevin yaratdığı imkanlar sayəsində dəfələrlə Beynəlxalq festivallara göndərilmişdi. Azərbaycan rəhbərliyinin ruh yüksəkliyi ilə uğurladığı xalq istedadları Fransa, İspaniya, Yunanıstan, Bolqarıstan, Macarıstan, Polşa, Hollandiya, Monqolustan, Çin, Almaniya və Avstriyada keçirilmiş Beynəlxalq Folklor Festivallarından respublikamıza laureat adı ilə qayıtmışdılar. Qazanılmış uğurlar həmin dövrdə respublikada folklor istedadlarına yaradılmış gözəl şəraitin məntiqi nəticəsi idi. Təkcə belə bir faktı xatırlatmaq yetərlidir ki, yetmişinci illərdə başqa respublikalarda folklor kollektivləri ictimai əsaslarla fəaliyyət göstərdikləri halda, Azərbaycanda belə qurumlar mədəniyyət sarayları strukturuna yerləşdirilərək, büdcədən maliyyələşdirilirdi. 1980-ci ildə respublika rəhbərliyinin göstərişi ilə Ağstafada "Saz məktəbi"nin açılması, daha sonra Tovuzda Hüseyn Bozalqanlı adına "Ozan - Aşıq Muzeyi"nin yaradılması folklorla bağlı görülən böyük tədbirlər cərgəsindədir. Bu dövrdə folklor işinə maraq o qədər güclənmişdi ki, respublika və rayon qəzetlərində folklor səhifə və guşələrinin verilməsi, ali və orta məktəblərdə folklor mərasimlərinin təşkil edilməsi adi hal almışdı. Hətta bir sıra yerlərdə folklor bayramları - "Qurbani saz bayramı" *(Cəbrayıl, 1978),* "Bayatı bayramı" *(Laçın, 1979),* " Dastan gecəsi" *(Tovuz, 1980),* "Koroğluya qayıdaq" *(Bakı, 1982)* və s. keçirilirdi. Azərbaycan Dövlət Filarmoniyasında ardıcıl şəkildə Borçalı, Göyçə, Tovuz, Gədəbəy, Şirvan, Gəncə aşıqlarının konsertləri təşkil edilirdi. Radio və televiziya ilə dastan axşamlan verilirdi. Folklorun təbliğində fədakarlıq göstərən "Odlar yurdu", "Bulaq", "Ozan", "Elin sazı - elin sözü", "Ocaq" kimi radio və televiziya verilişləri xalq arasında böyük rəğbət qazanmışdı. Məhz sözügedən radio və televiziya verilişləri sayəsində Aşıq Şəmşir, Mikayıl Azaflı, Əkbər Cəfərov, İmran Həsənov, Şakir Hacıyev, İsfəndiyar Rüstəmov, Murad Niyazlı və başqa istedadlı el aşıqlarının repertuarından dastanlar, aşıq havalan yazıya alınıb qorundu.

Azərbaycan Respublikası hüdudlarından kənarda - qonşu Gürcüstan və Ermnənistan respublikalarında yaşayan Borçalı və Göyçə aşıqları - Əmrah Gülməmmədov, Hüseyn Saraçlı, Kamandar Əfəndiyev, Fətulla Göyçəli, Hacı Bayramov kimi ustad sənətkarlar tez-tez Bakıya dəvət olunur, konsertləri təşkil edilir, repertuarları yazıya alınırdı. Göründüyü kimi, milli mənəvi dəyərlərin qorunub yaşadılması ilə bağlı həyata keçirilən tədbirlər kompleksinin arxasında olduqca uzaqgörən bir siyasət yürüdülürdü. Strateji məqsəd daşıyan bu siyasət özünütanıma, özünətapınma, soykökü, tarixi-milli yaddaşı qoruma işinə xidmət edirdi.

Heydər Əliyevin yetmiş-səksəninci illərdə milli-mənəvi sərvətlərimizə verdiyi qiymət, göstərdiyi qayğı və diqqət onun doxsanıncı illərdəki fəaliyyətinin də ayrılmaz tərkib hissəsi olaraq qalırdı. Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra o, həyatımızın digər sahələri kimi, mənəvi-mədəni dəyərlər istiqamətini də daim diqqət mərkəzində saxlayaraq, bu sahənin perspektivi üçün sistemli tədbirlər həyata keçirdi. Müdrik rəhbərin folklor və klassik ədəbi irsə xüsusi maraq göstərməsi müstəqil Azərbaycana rəhbərliyin hər məqamında qabarıq şəkildə özünü göstərirdi. "Dədə Qorqud-1300", "Aşıq Ələsgər-175; 180", "Aşıq Şəmşir-100" yubileylərinin dövlət səviyyəsində hazırlanması və birbaşa Prezidentin nəzarəti altında həyata keçirilməsi bunun əyani təzahürü idi.

Səksəninci illərin ikinci yarısından az qala unudulmaq səviyyəsinə gəlmiş folklor işi məhz ulu öndərin qayğı və diqqəti sayəsində yenidən öz qaynar həyatına qovuşdu. Folklor kollektivlərinin yenidən təşkili və bərpası, Azərbaycan Folklor Külliyyatı və Atlasının nəşrinə başlanılması, çoxcildlik Azərbaycan folklor antologiyasının onlarla cildinin (Borçalı, Naxçıvan, İraq-türkmən, Zəngəzur, Göyçə, Qarabağ, Şəki, Şirvan, Dərbənd və s.) işıq üzü görməsi və bu istiqamətdəki elmi fəaliyyətin uğurla davam etməsi də Heydər Əliyev hakimiyyətinin ikinci dönəminin yaratdığı münbit zəmin və yeni ab-hava ilə bağlıdır.

Azərbaycanda folklor işinin yüksək səviyyəli təşkilini həyata keçirmək üçün 1994-cü ildə Milli Elmlər Akademiyasında xüsusi elmi statusa malik Folklor Elmi-Mədəni Mərkəzinin yaradılması həmin dövr üçün çox mühüm bir addım idi. 1998-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə folklor işinin xüsusi tələblər səviyyəsində qurulması ilə bağlı qarşıda duran perspektiv vəzifələr müəyyənləşdirilmiş və onların gerçəkləşdirilməsi üçün uzunmüddətli tədbirlər planı hazırlanmışdı. Folklorun toplanması, nəşri, tədqiqi və təbliği sahəsindəki fəaliyyətin köklü şəkildə yenidən qurulması və mənəvi quruculuqda aparıcı istiqamətlərdən birinə çevrilməsi ölkə Prezidentinin humanitar sahədəki strateji siyasətinin tələbi idi. 2003-cü ildən AMEA Nizami adına Ədəbiyyat İnstitutu nəzdindəki Folklor Elmi-Mədəni Mərkəzinin müstəqil elmi-tədqiqat qurumuna - Folklor İnstitutuna çevrilməsi bu sahəyə qayğı və himayənin nə qədər güclü olduğunu bir daha təsdiqlədi.

2002-ci ildə Azərbaycan Respublikasının Milli Məclisində "Folklor haqqında Qanun"un qəbul edilməsi və Prezident Heydər Əliyev tərəfindən təsdiqlənməsi faktı da müstəqil Azərbaycan dövlətçiliyinin mənəvi-humanitar həyatında folklor mədəniyyətinə diqqət və qayğının əyani təzahürü idi.

Bu həssas münasibətin nəticəsi olaraq elmi-tədqiqat müəssisələrində, universitetlərdə, konservatoriyada, eləcə də kütləvi informasiya vasitələrində folklor işinə xüsusi maraq göstərilməyə başlandı. Azərbaycan folklor və etnoqrafiya mədəniyyətinin geniş arenada tanıdılması məqsəd ilə "Folklor və etnoqrafiya" beynəlxalq elmi jurnalı işıq üzü gördü Azərbaycan muğamının YUNESKO tərəfindən qeydə alınması (2004 hadisəsi də bu yöndəki məqsədyönlü fəaliyyətin nəticəsi oldu.

Vaxtilə yasaqlara məruz qalmış Novruz bayramının Azərbaycanda hər il dövlət səviyyəli tədbir kimi keçirilməsi də ulu öndərimiz Heydər Əliyevin ictimai-siyasi fəaliyyəti ilə sıx şəkildə bağlıdır. 1979-cu ildə İçərişəhərdə keçirilən Novruz şənlikləri onun göstərişi əsasında Azərbaycan televiziyası ilə birbaşa translyasiya edilmişdir. Bu, həmin dövr üçün böyük cəsarət tələb edən bir hərəkət idi. Şübhəsiz ki, belə bir addımın atılmasında böyük siyasi avtoritet kimi Heydər Əliyev şəxsiyyəti mühüm rol oynamışdı.

Yetmiş-səksəninci illərdə milli-etnoqrafik həyatımızla bağlı bayram mərasimlərinin keçirilməsini mümkün ola biləcək imkanlar daxilin təşkil və himayə edən Heydər Əliyev doxsanıncı illərdə - hakimiyyətinin ikinci dönəmində Novruz bayramının dövlət statuslu bayramlar sırasına daxil edilməsini gerçəkləşdirmişdir. Hər il böyük təntənələrlə qeyd olunan Novruz mərasimlərində müdrik rəhbər xalq arasında olur, bayramında yaxından iştirak edirdi.

1997-ci ilin yazında İçərişəhərdə keçirilən Novruz mərasiminə təşrif gətirən Azərbaycan Respublikasının Prezidenti etnoqrafik etüdlərə, çal-çağırlara, xalq rəqslərinə, Novruzla bağlı göstərilən el adətlərinə səmimi nəzər yetirərək, mərasimə toplaşanları salamlayır və elin bayramını təbrik edirdi. Birdən o, ayaq saxladı və "Bala Nərgiz" aşıq mahnısını böyük şövqlə oxuyan cavan bir aşığa yaxınlaşdı. Prezidentin üzündəki səmimi təbəssüm və məmnunluq onun gənc aşığın oxumasından necə böyük zövq aldığını aydın göstərirdi. Cavan aşıq oxuyub qurtardıqdan sonra Heydər Əliyev əlini onun kürəyinə vurub dedi:

- Bu mahnı çox gözəldir. Sən də onu gözəl oxudun. Sağ ol! Belə mahnılar adamın ruhunu oxşayır.

Prezidentin el mahnısına belə həssas münasibəti, şübhəsiz ki, onun xalq ruhuna, el musiqisinə, bir sözlə, milli-mənəvi dəyərlərə qandan-candan bağlılığından irəli gəlirdi.

Ümummilli liderimizin Novruz bayramı münasibəti ilə Azərbaycan xalqına təbriklərində də onun mənsub olduğu etnosun mənəvi-tarixi dəyərlərinə həssas münasibəti öz əksini tapırdı: "İnsanları baharın gəlməsi, təbiətin oyanması münasibəti ilə müjdələyən Novruz bayramı ən qədim dövrlərdən bəri xalqımızın sevinc, şadlıq bayramı olmuş, tariximizin müxtəlif dövrlərində bəzi təzyiqlərə, süni maneələrə məruz qalmasına baxmayaraq, bu günə qədər gəlib çatmışdır. Bu milli bayramımızın indi dövlət səviyyəsində geniş qeyd olunması Azərbaycanın dövlət müstəqilliyinin bəhrələrindəndir.

Novruz bayramı ürəklərdə saf duyğuların oyanması üçün, insanlar arasında səmimiyyət, mehribanlıq və qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi, onların bir-birinə qayğı və diqqətinin artırılması üçün gözəl zəmin yaradır. Yaxınların yad olunması, umu-küsünün, kin-küdurətin aradan qaldırılması, cəmiyyətdə qarşılıqlı xoş münasibətlərin bərqərar olması Novruzun əsrlərin süzgəcindən keçərək formalaşmış gözəl ən-ənələrindəndir".

Soykökdən, qan yaddaşından gələn milli-mənəvi keyfiyyətlərin, xəlqi koloritin qüvvəsi özünü Heydər Əliyevin qeyri-adi, bənzərsiz natiqlik qabiliyyətində də əks etdirirdi. Ana dilinin, xalq ruhu və psixologiyasının gözəl bilicisi olan ulu öndərin nitq və çıxışlarında, eləcə də söhbət və müsahibələrində Azərbaycan dilinin saflığı, duruluğu, xəlqi kolorit və dinamizmi öz dolğun və təbii ifadəsini tapırdı.

Folklor və etnoqrafiya mədəniyyətimizin, elat həyatının incəliklərini dərindən bilən Heydər Əliyev cənabları Naxçıvana səfərlərinin birində çayxanada əyləşib adamlarla söhbətləşdiyi zaman qədim el adətincə, "dişləmə çay"ın nə olduğunu və onun necə içildiyini çox təbii və səmimi bir koloritlə nümayiş etdirəndə çevrəsindəkilər onun sadəliyinə, həm də "dişləmə çay" adətini necə böyük şövq və qürurla göstərdiyinə heyran qaldılar.

Orada ona ətirli ot çayı da təqdim etdilər. Bu çayı uşaqlıqdan çox bəyəndiyini söylədiyi zaman çayı gətirən adam:

- Kəkotu çayıdı, - dedi.

Heydər Əliyev gülümsünərək özünəməxsus təbəssümlə:

- "Kəkotu" yox, oğlum, "Kəklikotu". Bu, kəklikotu bitkisindən hazırlanmış çaydır. Odur ki, "kəklikotu çayı" deyilməlidir, - şəklində onun sözünə düzəliş verdi.

Göründüyü kimi, Heydər Əliyev şəxsiyyətinin bənzərsiz tarixi fenomenliyi onun dünya miqyaslı böyük siyasi xadim olmaqla yanaşı, doğma xalqına məxsus adət-ənənələri dərindən bilməsi, onları öz şəxsi həyatının nümunəsində qoruması və yaşatması amili ilə də çıx bağlı idi.

Dilimizin, ruhumuzun incəliklərinə, tariximizin dərin qatlarına, ədəbi-mədəni abidələrimizə müdrik meyarlar və dəqiq elmi-nəzəri ölçülərlə qiymət verən Heydər Əliyev təkcə Azərbaycan hüdudlarında dəyərləndirmələr aparmırdı. Onun mülahizə və düşüncələri Azərbaycan mənəvi-mədəni gerçəkliklərini Şərq mədəniyyəti kompleksi, ümumtürk konteksti daxilində təqdim və təhlil edirdi. Prezidentimizin təkcə Bakıda yox, dünyanın ən müxtəlif yerlərində, ən mötəbər mədəniyyət və siyasət kürsülərində tarixi keçmişimizlə, mənəvi dəyərlərimizlə bağlı söylədiyi fikir və mülahizələr bu baxımdan öz konseptuallığı ilə seçilirdi. Mənəvi mədəniyyətlərimizin tarixi köklərinin türk xalqlarının ortaq keçmişində - vahid etnik-mədəni sistem daxilində təşəkkül tapması fikrini Heydər Əliyev özünəməxsus məntiq və faktlar əsasında açıqlayırdı. "Biz, adətən, böyük tariximiz haqqında, xalqlarımızın böyük tarixi mədəniyyəti haqqında danışarkən birinci növbədə onların yaratdıqları bədii əsərlərə, şairlərimizin, yazıçılarımızın əsərlərinə istinad edirik, onları nümunə gətiririk. Qədim dövrlərdə "Dədə Qorqud", "Manas", "Alpamış", "Koroğlu" dastanları, xalqımızın hamısına mənsub olan şairlərimiz, yazıçılarımız - Nizami, Yunis Əmrə, Əlişir Nəvai, Füzuli, Nəsimi, Məxdumqulu, Abay və digərləri xalqlarımızın tarixini, mənəvi dəyərlərini əks etdirən, onu dünyada tanıdan ölməz əsərlər yaratmışlar və bunlar nəsillərdən-nəsillərə xalqımızı özünəməxsus milli-mənəvi dəyərlər, o cümlədən ümumbəşəri dəyərlər əsasında tərbiyə etmiş, hazırlamış, vətənpərvərlik, vətənə sədaqət hisslərini daim gücləndirmişdir" *(1, s. 370-371).*

1997-ci ildə Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun dəvəti ilə Daşkənddə rəsmi səfərdə olarkən Heydər Əliyev cənabları öz çıxışında ortaq türk mənəvi dəyərləri sırasında qədim türk eposlarının, yerini də məhz bu məqsədlə bir daha vurğulamışdı: "Biz ümumi köklərə bağlıyıq, eyni tarixi köklərə mənsubuq və xalqlarımızın dil birliyi, mənəvi-əxlaqi, mədəni dəyərlərinin birliyi bizi həmişə birləşdirmiş və dostluq şəraiti, qarşılıqlı yardım şəraiti yaratmışdır. Biz "Dədə Qorqud", "Alpamış", "Koroğlu" dastanlarından iftixar hissi ilə danışırıq. Onlar həm özbək xalqı üçün, həm də Azərbaycan xalqı üçün eyni dərəcədə dəyərlidir".

Türk folklor mədəniyyətinin şah əsərlərindən biri olan "Manas" eposunun 1000 illiyinin beynəlxalq səviyyədə qeyd olunduğu 1997-ci ildə bu möhtəşəm hadisəyə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin verdiyi dəyər həmin dövrdə bütün türk dünyasında böyük əks-sədaya səbəb olmuşdu. Qırğızıstanın

paytaxtı Bişkekdə təntənəli yubiley münasibəti ilə keçirilən zirvə toplantısında o, türk dünyasının müdrik ağsaqqalı kimi bu əzəmətli dastanın qırğız xalqı və bütövlükdə türk dünyası üçün nə qədər böyük əhəmiyyət daşıdığına xüsusi diqqət yetirərək göstərirdi ki, "Manas" qırğız xalqının müdrikliyinin rəmzidir, zəkasının, qəhrəmanlığının, cəsarətinin rəmzidir. "Manas" qırğız xalqının daim vətənpərvər olduğunu, ədalətsevər, azadlıqsevər olduğunu, cəsarətli olduğunu bütün dünyaya nümayiş etdirir. "Manas" qırğız xalqının böyük mədəni-mənəvi sərvətidir, bütün dünya sivilizasiyasının, bəşəriyyətin dəyərli sərvətidir, türk dünyasının, türkdilli xalqların, islam dünyasının böyük mənəvi sərvətidir. "Manas" eyni zamanda Azərbaycan xalqına məxsusdur. Azərbaycan xalqının da mənəvi, mədəni sərvətidir. "Manas" bizim hamımızın, xalqlarımızın hamısının ulu babasıdır" *{!, s. 309).*

Bütün mübariz həyatı boyu apardığı qlobal, uzaqgörən və taleyüklü siyasətlə vətən, millət öndərinə, qurtuluş gətirən xilaskara çevrilən Heydər Əliyevə Azərbaycan xalqının dərin, sarsılmaz sevgisi və sonsuz ehtiramı yığıncaq və toplantılarda tez-tez diqqəti çəkən "Heydər - Xalq" şüarında çox dəqiq ifadə edilmişdir. Xalq öz ümummilli liderini ruhunun, varlığının yenilməz ifadəçisi və əvəzolunmaz tərcümanı kimi görür. El şairlərinin, aşıqların Heydər Əliyev şəxsiyyətinin tarixi qüdrətinə, Heydər Əliyev dünyasının parlaq, nurlu, həmişəyaşar əzəmətinə həsr etdikləri qoşma və gəraylılarda, aşıq mahnılarında da eyni ruhun hakim olması tamamilə təbiidir:

Dilləndir sazını, Aşıq Əhliman,
Sözlərin aləmə qoy olsun bəyan.
Otuz beş il xalq yolunda can qoyan
Ulu Heydər kimi rəhbərimiz var.
***(Aşıq Əhliman)***

Elin ər oğludu, yurd dayağıdı,
Dünyaya səs salır sözü Heydərin.
Sabaha nur saçan el mayağıdı,
Qartal baxışlıdı gözü Heydərin.
***(Aşıq Murad)***

Yurduna bağlıdı eşqi, həyatı,
Azad Azərbaycan onun muradı.
Elin sərkərdəsi, xalqın nicatı,
Yenilməz qüdrətdi Heydər babamız.
***(Aşıq Mahrnud)***

Xalqın ruhuyla, milli-mənəvi dünyasıyla qırılmaz tellərlə bağlı olan, onu işıqlı sabaha, aydınlığa aparan Heydər Əliyev şəxsiyyətinin nurlu siması el məhəbbətinin gözüylə belə görünür.

***Redaksiyadan: Folklorumuzun yorulmaz tədqiqatçısı, filologiya elmləri doktoru, professor, AAB-nin birinci katibi Məhərrəm Qasımlı bu tədqiqat işinə görə Dövlət mükafatına layiq görülüb. Bu münasibətlə görkəmli alimimizi təbrik edir, ona yeni-yeni uğurlar arzulayırıq.***

**«Ozan dünyası».-**2010.-№2.-S.3-19.

## HEYDƏR ƏLİYEV VƏ MÜASİR AZƏRBAYCAN

**Məhəbbət QARABAĞLI,**
Azərbaycan Respublikası Təhsil
Nazirliyinin Bakı Şəhəri üzrə
Təhsil İdarəsinin rəis müavini

**Bu yaxınlarda Nazirlər Kabinetinin 2010-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2011-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı çıxışında Prezident İlham Əliyev müstəqilliyimizin bərpasının 20 illiyinin qeyd olunacağını bildirərək demişdir: “Bu il biz müstqilliyimizin bərpasının 20 illiyini qeyd edəcəyik. 20 il ərzində Azərbaycan müstəqil ölkə kimi yaşayır”. Prezident yanvarın 21-də “Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü haqqında ” sərəncam da imzaladı. Sərəncamda deyilir: ” 1993-cü ilin iyun ayında ölkədə formalaşmağa başlayan yeni siyasi kurs vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı, separatçılıq meyllərinə son qoydu və Heydər Əliyevin dövlət quruculuğu siyasətinin gerçəkləşməsinə gətirib çıxardı. “**

Tariximizin bu dövrünün səhifələrini vərəqləsək aydın görərik ki, müasir Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və dönməzliyi ulu öndər Heydər Əliyevin adı ilə sıx şəkildə bağlıdır. Məhz ümummilli liderin uzaqgörən siyasətinin nəicəsində Azərbaycan son illər inkişaf etmiş, azad,firavan ölkəyə çevrilmişdir. “Azərbaycan dövlət müstəqilliyi yolunda fədakarcasına çalışmaq mənim həyatımın mənasıdır” – deyirdi ulu öndər. Ulu öndər hakimiyyətdə olduğu illərdə müstəqilliyimiz möhkəmləndi, dönməz xarakter aldı, ölkəmiz bütün dünyada tanındı. Dahi siyasət xadimi deyirdi ki, “müstəqilliyimiz bizim tarixi nailiyyətimizdir”.

Bu danılmaz həqiqətdir ki, müstəqillik hər bir xalqin həyatında ən dəyərli nemətdir. Bu dəyərli neməti əldə etmək nə qədər çətindirsə, onu qorumaq, möhkəmləndirmək bir o qədər ağır və mürəkkəb prosesdir. Bunun üçün mökəm, qüdrətli dövlət yaratmaq cox vacib məsələdir. Çünki qüdrətli, möhkəm dövləti olmayan bir xalqın müstəqilliyi də müvəqqəti olacaq, Zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı müstəqillik yolunda uzun müddət mübarizə aparmış, yalnız Heydər Əliyevin ikinci dəfə hakimiyyətdə olduğu dövrdə Azərbaycan öz müstəqilliyinə qovuşaraq dövlətçilik ənənələrini daha da möhkəmləndirmişdir. Ulu öndər yaxşı bilirdi ki, güclü dövlət olmayan yerdə müstəqillikdən danışmağa dəyməz. Ona görə də hakimiyyətə gəldiyi ilk vaxtdan Heydər Əliyev Azərbaycan dövlətçiliyini möhkəmləndirmək üçün bir çox əhəmiyyətli tədbirlər həyata keçirdi, dövlətimizi dağılmaqdan xilas etdi, Azərbaycanı sürətli inkişaf yoluna çıxardı.

Böyük xilaskar 1993-2003-cü illərdə bir neçə hissəyə parçalanan, sosial-iqtisadi tərəqqi zolağında olan, ictimai-siyasi və hərbi-mənəvi böhran içində çabalayan ölkəni yenidən qurdu, faktiki olaraq güclü dövlət yaratdı, insan hüquqları ön plana çıxdı, cəmiyyət demokratikləşdi. Azərbaycanın Qərbə interqrasiyası təmin olundu, ölkəyə on milyardlarla dollar xarici sərmayə və müasir texnologiya gətirən layihələr gerçələşdirildi. İnanmaq olmur ki, bütün bunlar bir insanın, bir liderin, bir tarixi şəxsiyyətin adı ilə bağlıdır.

Heydər Əliyev ona görə güclü idi ki, o, haqlı idi. O, müstəqilliyini arzulayan bir xalqın istəyini reallaşdırdı və bu yolda bütün mərhumiyyətlərə hazır idi. “Mən ömrümün qalan hissəsini öz xalqıma bağışlamışam” – ulu öndər bu fədakarlığı bütün siyasi fəaliyyətində büruzə verirdi. Ulu öndərin hakimiyyətdə olduğu illər bizim gözlərimiz qarşısında keçmişdir. Biz bu illərin ağrılarını yaşamışıq və görmüşük ki, müstəqillik yolunda hansı məhrumiyyətlər olur və ulu öndərimiz necə çiyinlərini bu ağırlığın altına verərək, canı qədər sevdiyi xalqını müstəqillik yoluna çıxardı.

Heydər Əliyev ona görə güclü idi ki, müstəqilliyə can atan xalqının ona böyük inam bəslədiyinə inanırdı. Böyük Mustafa Kamal Atatürk 1919-cu ilin ağır istiqlal savaşı günlərində türklərin mütləq qələbə qazanacağına əminliyini ifadə edərək belə deyirdi: “Hər halda dünyada haqq var və o haqq qüvvədən yüksəkdir”. Heydər Əliyev ona görə güclü idi ki, o dövlətçi idi, çünki haqqı hər şeydən üstün sayırdı. O, müstəqilliyin də Azərbaycan xalqının haqq işi olduğunu yaxşı bilirdi.

Heydər Əliyevi nahaq yerə “siyasətin canlı əfsanəsi” adlandırmırlar. Heç bir liderin görə bilmədiyi işləri ulu öndər bacardı. O, Azərbaycanımızı güclü dövlətə çevirərək, müstəqilliymizin əbədiliyini və dönməzliyini təmin etdi, hakimiyyətə gəlişi ilə Azərbaycana, sanki, yeni nəfəs, ruh gətirdi. Bütün dünya siyasətçiləri yaxşı bilirdilər ki, bu müdrik dövlət xadiminin Azərbaycana yenidən rəhbərlik etməsi ilə onun müstəqilliyi təmin olunacaq, Azərbaycan güclü dövlətə çevriləcək. Məsələn, ABŞ-ın keçmiş dövlət katibi Henri Kissencer demişdir: “Mən görkəmli dövlət xadimi Heydər Əliyevin müdrik zəkasına inanıram və bilirəm ki, onun rəhbərliyi altında Azərbaycan öz müstəqilliyini daha da möhkəmləndirəcək və əbədi edəcəkdir. Heydər Əliyevin

uzaqgörən siyasəti xalqı və ölkəni firavanlığa gətirib çıxaracaqdır". Bəli, belə də oldu. Dünya xəritəsində balaca görünən Azərbaycan ulu öndərin siyasi səriştəsi, uzaqgörənliyi nəticəsində dünyada tanındı.

Heydər Əliyev ötən əsrin 90-cı illərinin ortalarından Azərbaycanda irimiqyaslı tarixi uğurun əldə edilməsi, dövlətçiliyin möhkəmləndirilməsi, idarəetmə proseslərinin təkmilləşdirilməsi, milli siyasi və iqtisadi sistemin formalaşdırılması istiqamətində çevriliş xarakterli dəyişiklikləri necə məharətlə, siyasi uzaqgörənliklə həyata keçirdiyi bizim gözlərimiz qarşısında baş vermişdir. Bu böyük şəxsiyyətin səyləri nəticəsində 1994-cü ilin oktyabr və 1995-ci ilin mart dövlət çevrilişləri ilə XX əsrdə Azərbaycan dövlətçiliyinin təməllərinə təhlükə yaratmaq istəyən qüvvələrin qarşısı alındı.

Heydər Əliyev yaxşı bidirdi ki, ölkədə sabitlik olmadan iqtisadi inkişaf mümkün deyildir. Ona görə də Dağlıq Qarabağ müharibəsinin müvəqqəti olaraq dayandırılması mühüm məsələ idi. 1994-cü ildə Ermənistanla atəşkəs respublikada ictimai-siyasi sabitliyin bərqərar edilməsi, dövlətçilik sütunlarının möhkəmləndirilməsi, hərbi quruculuq, vahid komandanlıq altında birləşən nizami ordu yaradılması, demokratik dəyərlərə cavab verən hüquqi, dünyəvi cəmiyyət quruculuğu, bazar iqtisadiyyatına keçid yolunda islahatlar aparılması üçün olduqca mühüm əhəmiyyətə malik idi.

Bundan sonra isə ölkəmizdə iqtisadi islahatlara başlamaq üçün əlverişli şərait yaranmış oldu. Respublikamızı bürüyən kəskin iqtisadi böhrandan çıxış yolları müəyyənləşdi. İqtisadiyyatda inkişafa nail olmaq üçün müvafiq qanunların qəbul edilməsi, liberallaşdırma tədbirlərinin, genişhəcmli özəlləşdirmə proqramının həyata keçirilməsi və s. Heydər Əliyevin bu istiqamətdə nəzərdə tutduğu iqtisadi strategiyanın real bəhrəsidir.

1994-cü ildə bağlanan "Əsrin müqaviləsi" Azərbaycan iqtisadiyyatının dirçəlməsində böyük bir mərhələnin başlanğıcını qoymuşdur. "Əsrin müqaviləsi" Azərbaycanımızın müstəqilliyinin möhkəmləndirilməsində çox əhəmiyyətli rol oynadı. Ümummilli liderin müdrik, uzaqgörən və səmərəli xarici siyasəti Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirdi. Ölkəmiz dünyaya çox sürətlə inteqrasiya etdi. BMT, Avropa Şurası, Avropa İttifaqı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı ilə ölkəmiz çox yaxın əlaqələr qurmuşdur. Bu gün ulu öndərin böyük siyasi uzaqgörənlyi nəticəsində Azərbaycan mötəbər beynəlxalq strukturlara siyasi və sosial-mədəni cəhətdən inteqrasiya olunub, öz üzərinə beynəlxalq öhdəliklər götürüb, çoxsaylı beynəlxalq saziş və konvensiyalara, o cümlədən insan hüquqlarının qorunmasına dair Cenevrə Konvensiyasına, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakta qoşulub. Ölkəmiz 150-dən çox dövlətlə diplomatik əlaqələr qurmuşdur. Bu ölkələrin, demək olar ki, hamısı Azərbaycanın ərazi bütövlüyünü tanıyır və onu işğal altında olan torpaqlarımızın qeyd şərtsiz boşaldılmasını istəyirlər.

Haqlı olaraq ulu öndər deyirdi ki, Azərbaycan dünyaya günəş kimi doğacaq. Doğrudan da, dünya ölkələri bu gün Azərbaycanı islahatların sürətlə reallaşdığı bir ölkə kimi tanıyır və onunla hesablaşırlar.

Heydər Əliyev deyirdi ki, "Azərbaycan Respublikasının müstəqilliyi tarixi bir hadisədir. Bu, Azərbaycan xalqının milli sərvəti, milli nailiyyətidir". O, Azərbaycanın müstəqilliyi yolunda mübarizə aparan insanları çox yüksək qiymətləndirirdi. 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi missiyası da məhz onun üzərinə düşmüşdü. Vətən yolunda canlarını qurban vermiş 20 Yanvar şəhidlərinin xatirəsini həmişə uca tutar, onları əsl vətənpərvər insan kimi səciyyələndirərdi.

Heydər Əliyev müstəqilliyin keşiyində durmağı şərəfli vəzifə adlandırırdı: "Dövlətçiliyin keşiyində durmaq, insanların hüquqlarını qorumaq, cəmiyyətdə qanun-qaydanın saxlanmasını təmin etmək və insanların rahat yaşamasını təmin etmək – bu, çox şərəfli vəzifədir". Onu da deyirdi ki, müstəqilliyin təkcə siyasi-mənəvi deyil, habelə maddi nəticəsi də olmalıdır, insanların yaşayışının yaxşılaşması təmin edilməlidir. Ona görə də hakimiyyətdə olduğu illərdə çətinliklər olsa belə insanların güzəranının yaxşılaşması üçün imkan olan hər şeyi edirdi.

Bu böyük siyasət nəhənginin rəhbərliyi altında işləmək mənə də nəsib olmuşdur. Heydər Əliyev tövsiyələrində həmişə Azərbaycanın müstəqilliyini möhkəmləndirmək üçün güclü iqtisadiyyatın yaradılmasının vacibliyini bildirirdi. O, regionların inkşafına xüsusi diqqət yetirirdi. Ulu öndər deyirdi ki, müstəqilliyi əldə etmək böyük nailiyyət olduğu kimi, onu yaşatmaq və əbədi etmək ondan da çətin bir işdir. Onun bir fikrini də diqqətə çatdırmaq istəyirəm: "Çalışıram ki, Azərbaycanı nəinki tam müstəqil edim, həm də Azərbaycanda saf, pak cəmiyyət yaradım və gələcək nəsilləri paklığa, təmizliyə, düzlüyə sövq edim. Bu mənim həyatımın məqsədidir".

Bugünkü müstəqilliyimizin səbəbkarı, yaradıcısı Heydər Əliyevdir. Məhz ulu öndərin tarixi xidmətləri bizi müstəqilliyin işıqlı yoluna çaxırmışdır. Bu yolun bələdçisi isə bu gün xalqın böyük məhəbətini qazanmış, Azərbaycanı lider dövlətə çevirən, ulu öndərin siyasi kursunun uğurlu davamçısı, Prezident İlham Əliyevdir. Ulu öndər İlham Əliyevə böyük ümidlər bəslədiyini ifadə edərək demişdir: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir

şəxsiyyətdir… İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram". Tarix göstərdi ki, ulu öndərin bu tövsiyəsi özünü doğrutldu. İlham Əliyev hakimiyyətə başladığı 2003-cü ildən Azərbaycanda Heydər Əliyev ideyaları sürətlə reallaşır, ölkəmizin müstəqilliyi ildən-ilə daha da möhkəmlənir, iqtisadiyyatımız güclənir. İndi Azərbaycan dünyada islahatların sürətinə görə lider dövlətlər sırasındadır.

Beynələxalq maliyyə qurumları Azərbaycanda gedən islahatları çox yüksək qiymətləndirir. Dünya İqtisadi Forumunun hesabatında rəqabət qabiliyyətliliyinə, informasiya-kommunikasiya texnologiyalarının inkişafına görə Azərbaycan MDB məkanında lider dövlətdir. Azərbaycan xalqının böyük xoşbəxtliyidir ki, onun Prezidenti bugünkü sürətlə dəyişən, dinamik dünyanın nəbzini əlində saxlaya bilən, müasir, çevik və cəsarətli dövlət xadimi kimi beynəlxalq münasibətlərdə sürətlə baş verən dəyişikliklərdən öz Vətəninin və xalqının xeyrinə məharətlə istifadə etməyi bacarır. Prezident İlham Əliyev Azərbaycanı ilbəil yeni qələbələrə qovuşdurur. Heydər Əliyev siyasəti, həqiqətən, inamla zəfər çalır.

Bu günlər biz Azərbaycanımızın müstəqilliyinin bərpasının 20-ci ildönümünü qeyd etməyə hazırlaşırıq. Xalqımız üçün bu olduqca böyük nailiyyətdir. Möhtərəm Prezidentimizin müşavirədə dediyi kimi: "… Müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük dəyərdir. Müstəqillikdən qiymətli heç nə ola bilməz". Bu yazını ulu öndərin belə bir ifadəsi ilə yekunlaşdırmaq istəyirəm: "XXI əsr Azərbaycanın yüksəliş əsri olacaq".

**"Xalq qəzeti".-**2011.-1 fevral.-N 23.-S.3.

## TALELİ SİYASƏTÇİ

**Oktay Hümbətli,**
Azərbaycan Texniki Universitetinin Fizika kafedrasının dosenti,
Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasında
Ədalət Partiyasını təmsil edən komissiya üzvü

Tale insana ALLAH tərəfindən verilir. Əgər RƏBBİmiz kiminsə taleyinə siyasətçi olmağı ərməğan edibsə, O, həyatının ilk çağlarında adi insanlardan biri olub, sonda böyük siyasətə gəlməklə böyük uğurlar əldə edəcək.

Bu qəbildən olan insanları taleli siyasətçilər adlandırmaq olar. Əks halda, zorən siyasətlə məşğul olanlar isə təqdir edilə biləcək uğura nail ola bilməzlər! Onlar, məhz talesiz siyasətçilərdir. Ambisiyaları siyasi imkanlarından qat-qat yüksək olan bu siyasətçilərin xalqımızın taleyini müəyyənləşdirmək iddialarını isə yalnız faciə adlandırmaq olar…

Bu yazıdan məqsədimiz Müqəddəs Qurani-Kərimdə rəqəmlərin və hərflərin yaratdığı möcüzələrə söykənməklə ulu öndər Heydər Əliyevin həqiqətən taleli siyasətçi olmasına diqqətinizi cəlb etməkdir. Möcüzələr yaratmaqla Qurani-Kərimin səmavi kitab olmasının təsdiqlənməsində həlledici rol oynamış 7, 19, 33 və eləcə də bir sıra digər rəqəmlərin ulu öndərin nəinki böyük siyasi fəaliyyətində, hətta dünyaya gəlişindən HAQQın Dərgahına qovuşanadək olan zaman kəsiyindəki tarixi məqamların bu rəqəmlərlə müşayiət olunması olduqca düşündürücüdür.

Gəlin Qurani-Kərimdə rəqəmlərin yaratdığı möcüzələrə baxaq: Qurani-Kərimin adlarından biri olmaqla fərqləndirmə mənasını daşıyan “al-Furkan” adı həqiqətlə yalanı fərqləndirmək üçün 7 dəfə təkrarlanır. Qurani-Kərim bəşər aləminə, Adəm övladına göndərilmiş və Adəm övladları, – “bəni Adəm” kəlməsi də 7 dəfə təkrarlanır. Müqəddəs Quran bildirir ki, göylərin sayı 7-dir (burada yəqin ki, Yerin atmosferinin 7 təbəqədən ibarət olması nəzərdə tutulur). Göylərin sayının 7 olması da 7 dəfə təkrarlanır. Müqəddəs Quranda göylərin və Yerin 6 gündə yaradılması (7-ci gün istirahət günüdür) 7 dəfə təkrarlanır.

Hər şeyə qadir ALLAHımız Məhəmməd Peyğəmbərə (s.ə.s.) hər namazda söyləyəcəyi “al-Fatihə” surəsini də 7 ayədən ibarət olmaqla bəxş etdi. Müqəddəs Quranda buyurulur ki, cəhənnəmin 7 qapısı var. “ALLAHdan başqa yoxdur ALLAH, Məhəmməd isə onun Rəsuludur” cümləsindəki sözlərin sayı da (təbii ki, ərəb dilində) 7-dir.

Qurani-Kərimdə ər-Rəsul və ondan törəmə sözlər 368 dəfə, peyğəmbər (ən-Nəbi) 75 dəfə, peyğəmbərə işarə olan xoş xəbərlər müjdəçisi əl-Bəşir 18 dəfə və nəhayət ən-Nəzir 57 dəfə təkrarlanır. Cəmi 518 dəfə. Peyğəmbərlərin adı Musa – 136, İbrahim -69 və s. (69-u yadda saxla) dəfə təkrar olunmaqla cəmi 518 (yeddinin 74 mislinə bərabər) dəfə çəkilir… Xalqımızın epik qəhrəmanı Koroğlu döyüşçülərinin (dəlilərinin) sayının da 7777 olması, həftə ərzində gecə-gündüzün növbə ilə yeddi dəfə bir-birini əvəz etməsi və s.

Qurani-Kərimdə 19 rəqəmi ilə də bağlı çoxsaylı maraqlı məqamlar var. Bunu 19-un onluq sisteminin birinci və axırıncı rəqəmindən düzəlməsi ilə də izah edirlər. Qurani- Kərimdə onun səmavi kitab olmasına inanmayacaq kafirlərin cəhənnəmə atılacağı və onlara nəzarət edəcək mələklərin sayının 19 olduğu göstərilir. Peyğəmbərə (s.ə.s.) göndərilmiş “al-Ələq” surəsindəki ayələrin sayı da 19-dur. Sayca 96-cı olan bu surədən sonrakı surələrin sayı, da 19-dur. Quranın “ən-Nəs” adlı axırıncı surəsində sözlərin sayı, birinci ayəsindəki hərflərin sayı da 19-dur.

Qurani-Kərimdəki surələrin sayı 19-un altı mislinə, 114-ə bərabərdir. Qurani-Kərimin əvvəlindəki “Bismilləhir-Rəhmanir-Rahim”dəki hərflərin sayı 19-dur. Qurani-Kərimdə ALLAH kəlməsi də 19-un 142 mislinə bərabər olan 2698 dəfə təkrarlanır. ALLAHın gözəl adlarından olan ar-Rəhman 19-un üç misli 57 dəfə, ar-Rahim isə 19-un altı misli 114 dəfə təkrarlanır… Bu mülahizələri davam etdirmək də olardı… Nəhayət, Peyğəmbərimiz (s.a.s.) İslam dinini 23 il (23-ü yadda saxlayın) ərzində təbliğ etdi…

6 min ayədən, 324 min sözdən ibarət olan Qurani-Kərimdəki rəqəmlərin və hərflərin sadaladığımız və sadalamadığımız möcüzələri qətiyyətlə göstərir ki, bu Müqəddəs kitab elementar təhsili belə olmayan insan tərəfindən yazıla bilməzdi…

Nobel mükafatı laureatı, Çarlz Kittelin “Mexanika” kitabının 23-cü səhifəsindən: Astronomik müşahidələrə əsasən deyə bilərik ki, kainatın bizə məlum olan hissəsinin ölçüsü, işığın 1010 ildə getdiyi yola bərabər olan 1023 km-dir. Baxın ulu öndər Heydər Əliyev XX əsrin 23-cü ilində, may ayının 10-da dünyaya gəlmişdir. Bütün maddi aləm molekullardan, atomlardan, onlar isə nüvədəki nuklon adlandırılan (kütlələri təqribən eyni olduğundan) proton və neytronlardan ibarətdir və cismin kütləsi onun təşkil olunduğu nuklonların sayı ilə müəyyən edilir. Kainatdakı nuklonların sayı isə 1080-dir. Yerdəki həyatın mənbəyi olan Günəşin

tərkibindəki nuklonların sayı isə 1057-dir (57=19 x 3). Kainatdakı ulduzların kütləsi Günəş kütləsinin 0,01-100 misli tərtibindədir. Deməli, Kainatdakı ulduzların sayı 1080:1057=1023 olacaq. Kainatdakı nuklonların sayını göstərən rəqəmdəki sıfırların sayı Mərhum Prezidentin yaşı 80-ə, ulduzların sayını göstərən rəqəmdəki, eləcə də kainatın radiusu hesab edilən rəqəmdəki sıfırların sayı isə onun doğum ilinə 23-ə, həmçinin 1010 işıq ilindəki sıfırların sayı isə onun doğulduğu may ayının 10-na bərabərdir. Bu qədər təsadüf mümkündürmü?

Qurani-Kərimi tədqiq edən alimlər üçün maraqlı olacaq iki fakta da diqqət yetirək. Günəşdəki nuklonların sayını göstərən rəqəmdəki sıfırların sayı 19-un 3 mislinə – 57-yə bərabərdir. Ulduzlar səmada necə gəldi yox, müəyyən simmetriya ilə paylanmışlar. Ulduzlar çevrilmiş boşqabın səthini xatırladan məkanda – qalaktikalarda qruplaşmış halda yerləşir. Hər bir qalaktikadakı ulduzların sayı təqribən 1010-dur. Günəşin daxil olduğu sistem bizim qalaktika adlanır və səmadakı südlü yoldakı ulduzlar bizim qalaktikanın bir hissəsidir. Qalaktikaların özləri də səmada qruplar halında yerləşir və bizim qalaktikanın olduğu qruplaşmadakı qalaktikaların sayı da məhz 19-dur.

Heydər Əliyev XX əsrin 7-ci onilliyinin 7-ci ilində siyasətdən kənar ən yüksək vəzifəsinə, Azərbaycan SSR DTK-nın sədri vəzifəsinə təyin olundu.

Ulu öndərimiz böyük siyasi fəaliyyətə, XX əsrin 7-ci onilliyinin 7-ci ayının yeddinin iki mislinə bərabər olan tarixdə – iyulun 14-də, İbrahim Peyğəmbərin (s.ə.s.) Qurani Kərimdə adının təkrarlandığı 69 rəqəminə uyğun 1969-cu ildə qədəm qoymuşdur. O, bu tarixdə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçilmişdir.

Rəqəmlərin cəmi mərhum prezidentin doğum ili 23-ə bərabər olan 1976-cı ildə isə böyük siyasi fəaliyyətində 2-ci mərhələyə qədəm qoymuşdur. Sovet İKP Siyasi Bürosunun üzvlüyünə namizəd seçilmişdir.

Zənnimizcə Heydər Əliyevin böyük uğurlu siyasi fəaliyyətində yeni epoxa kimi dəyərləndirilə biləcək tarix olaraq XX əsrin rəqəmlərinin cəmi 19-a bərabər olan 1990-cı ilin birinci ayının 7-nin üç mislinə bərabər olan gün – yanvarın 21-i götürülməlidir. O, həmin gün Moskvadakı Daimi Nümayəndəliyimizə gələrək sovet qoşunlarının Qanlı 20 Yanvarda Bakıda törətdiyi qırğınlarla bağlı özünün tarixi bəyanatını vermişdir.

19 iyul 1991-ci il. Bu tarixdə ulu öndərin qəbul etdiyi qərarın əhəmiyyətini vurğulamaq üçün görkəmli fizik, Nobel mükafatı laureatı German Veylin simmetriya nəzəriyyəsini qısa da olsa şərh etməyə ehtiyac vardır.

G.Veylə görə, kainatın varlığının əsasında simmetriya, eləcə də antisimmetriya durur. Ulduzlar səmada pərakəndə halında deyil, qalaktika adlanan çevrilmiş boşqab səthində müəyyən simmetriya ilə paylanmışdır. Günəş sisteminin modelinə (xüsusilə planetlərin hərəkəti halında təsviri) baxanlar, Yerin, eləcə də digər planetlərin və peyklərin heyrətamiz dəqiqliklə öz orbitləri boyunca fırlanmalarının, orbit müstəvilərinin vəziyyətinin səmada böyük dəqiqliklə dəyişilməz olaraq qalmasının şahidi olmuşlar. Bu gün maraq kəsb edən qiyamət gününün ən müxtəlif səbəblərdən baş verəcəyini söyləsələr də, bu səbəblərin hamısı Yerin öz orbitindən – məhvərindən çıxması ehtimalına əsaslanır. Bu isə Günəş sistemində mövcud olan simmetriyanın pozulması deməkdir. Hər minilliyin tək bircə böyük simmetriya ili (1001, 2002, 3003), hər bir əsrin də öz simmetriya ili olur. 1991-ci il 19-un yanına qoyulmuş güzgüdəki əksi 91-in birləşməsindən alınır. Yəni 1991-ci il XX əsrin yeganə simmetriya ili idi.

19 iyul 1991-ci il, XX əsrin yeganə simmetriya ili olmaqla, ilin yeddinci ayının 19-cu günüdür. 7 və 19 rəqəmlərinin Qurani-Kərimin səmavi kitab olmasının təsdiqlənməsindəki möcüzələrlə artıq tanış olmuşuq. Heydər Əliyevin məhz bu tarixdə illər boyu xidmət etdiyi kommunist ideyasından imtina etməsi olduqca düşündürücüdür… O, kommunist adından, partiya və biletindən 1987-ci ilin 21 oktyabrında, yaxud 1990-cı ilin 21 yanvarında imtina edə bilərdi… Lakin onun böyük siyasətçi taleyinin məhz 1991-ci il iyul ayının 19-nu seçməsi təsadüf deyil. İlk baxışda adi günlərdən biri olan bu tarix İLAHİnin seçimi idi. Təkcə bu fakt kifayət edər ki, böyük siyasətin onun taleyinə İLAHİdən yazılmasına hər kəsi inandırsın…

Simmetriya anlamını inkişaf etdirərək deyə bilərik: ulu öndər dünyaya gəldiyi XX əsrin sonuna, HAQQIN dərgahına qovuşduğu XXI əsrin başlanğıcına 77 il qalmış anadan olmuşdur. Əzəmətli simmetrik 77 rəqəmi də onun Taleyi idi…

Ulu öndər Heydər Əliyev Azərbaycanda 2-ci dəfə hakimiyyətə həm XX əsrin sonuna, XXI əsrin əvvəlinə 7 il qalmış, həm də yeddinci ayın (iyulun) başlanğıcına 7 gün qalmış, yəni 24 iyun 1993-cü ildə gəldi. Xatırlayırsınız, Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildikdən və sabiq Prezident Ə. EIçibəyin iyunun 18-də paytaxtı tərk edib Naxçıvanın Kələki kəndinə getməsindən sonra ölkə hakimiyyətində ciddi boşluq yaranmışdı. 24 iyun 1993-cü ildə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin icrası Ali Sovetin sədrinə verildi…

Fikir verin… rəqəmlərinin cəmi ulu öndərin doğum ili 23-ə bərabər olan 1994-cü ilin yeddinci ayının 9-da Məkkə şəhərində Müqəddəs Kəbəni ziyarət etmişdir. Bu, İLAHİnin ona bəxş etdiyi daha bir töhfə deyildimi?

Daha bir rəqəmin Heydər Əliyevin böyük siyasi fəaliyyətində yaratdığı möcüzəyə diqqətinizi cəlb etmək istərdik… Bu 33 rəqəmidir. Bir qərinə 33 ildir. Qurani-Kərimin 33-cü surəsinin 33-cü ayəsində deyilir: "…Ey Əhli- beyt! Həqiqətən, ALLAH sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istəyir!" Alimlərin fikrincə, bu sətirlər Həzrət Əliyə (ə) və Peyğəmbərimizin (s.ə.s.) sevimli nəvələrinə – Həsənə (ə) və Hüseynə (ə) ünvanlanmışdır.

2003-cü ilin martında xalqımızın sevimli Bahar-Novruz bayramı günü ilə, İbrahim Peyğəmbərin (s.a.s.) anadan olduğu və ALLAHın onu atıldığı oddan xilas etdiyi; Musa Peyğəmbərin (s.a.s.) onun qövmü ilə birlikdə Fironun təqibindən azad olduğu; İsa Peyğəmbərin (s.a.s.) səmaya qeybə çəkildiyi; Nuh Peyğəmbərin (s.a.s.) gəmisinin seldən sahilə çıxdığı; Süleyman Peyğəmbərə (s.a.s.) hakimiyyət və bütün heyvanların, quşların dilini bilmək qabiliyyətinin verildiyi, nəhayət, Peyğəmbərimizin (s.a.s.) sevimli nəvəsi İmam Hüseynin (ə) və tərəfdaşlarının şəhidlik zirvəsinə yüksəldikləri, haqqın və mənəviyyatın fani dünya üzərində qələbəsini tərənnüm edən o əlamətdar gün, Məhərrəm ayının 10-u, yəni Aşura günü qovuşmuşdu… Bu iki günün qovuşması bir də 33 il sonra 2036-cı ildə baş verəcək… Bu böyük qovuşma ulu öndərin hakimiyyətə gəldiyinin bir ili tamam olmamış, yəni 1970-ci ilin martında baş vermişdi… Sadəcə, sovetlərin dövrü olduğundan fikir verilməmişdi… Bu iki əlamətdar günün qovuşması Heydər Əliyevin böyük siyasi fəaliyyətinin 1-ci və sonuncu, 33-cü ilində baş verdi… Bu, ulu öndərin böyük siyasi fəaliyyətinin bir qərinə – 33 il olacağına işarə idi.

Müqəddəs Qurani-Kərimin səmavi kitab olmasını təsdiqləyən möcüzəli 7 və 19 rəqəmlərinin bir qərinəlik böyük siyasi fəaliyyətin ən önəmli məqamlarını müşayiət etməsi, siyasətin bu böyük insanın taleyinə RƏBBimizin ərməğan etməsinə kiminsə inanmamasını mümkünsüz edir.

Beləliklə, böyük həqiqət ondan ibarətdir ki, Heydər Əliyev taleli siyasətçi idi!

**"İki sahil".-**2011.-11 fevral.-N.26.-S.7.

# AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ HEYDƏR ƏLİYEVİN TARİXİ XİDMƏTLƏRİNDƏN BİRİDİR

**Nurlana ƏLİYEVA,**
YAP Qadınlar Şurasının sədri, filologiya elmləri doktoru,
Professor

**Xalq ulu öndərin qurduğu dövlətin daha da qüdrətlənməsi üçün mükəmməl bir həmrəylik nümayiş etdirir**

**Bu il biz müstəqilliyimizin bərpasının 20 illiyini qeyd edəcəyik. İyirmi il ərzində Azərbaycan müstəqil ölkə kimi yaşayır... Biz yubileyi Azərbaycanda geniş şəkildə qeyd etməliyik.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2010-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2011-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı yekun nitqindən**

**Bakı, 14 yanvar 2011-ci il**

**Tarix səbrli, təmkinli və eyni zamanda, çox qətiyyətli addımlarıyla insanlara möhtəşəm bir dərs verir. Bu dərs hər bir fərdin həyatında olduğu kimi, bütöv xalqların və dövlətlərin həyatında da mühüm rol oynayır. Təbii ki, Azərbaycan xalqı da bu bəşəri prosesin çox böyük mərhələlərindən keçmişdir. Həmin mərhələlərdən biri də bizim eyni əsrdə ikinci dəfə dövlət müstəqilliyinə nail olmağımızdır.**

Hərdən insana elə gəlir ki, soydaşlarımızın milli azadlıq hərəkatına qalxdığı günlər lap bu yaxınlarda baş vermişdir. Gözümüz önündə on minlərlə, yüz minlərlə insanın "Azadlıq!", "Azadlıq!" - deyə hayqırdığı meydan, azadlıq mücahidlərinin qandallanaraq zindanlara atılması, "Lefertovo"ya salınandan sonra belə şərin üzünə tüpürməkdən qorxmayan soydaşlarımızın əzəmətli surəti, Kremlin ən çirkin əməllərindən olan milli ayrı-seçkilik siyasəti, xalqın azadlıq arzularını məhv etmək üçün Bakıda törədilmiş 20 Yanvar faciəsi, qaniçən Qorbaçovun antitürk siyasətinə etiraz edən ulu öndər Heydər Əliyevin bilavasitə Moskvada - Kremlin gözü qarşısında Azərbaycan xalqının milli azadlıq hərəkatını dəstəkləməsi və bir çox başqa məqamlar canlanır. Bir anlıq elə bilirik ki, bu hadisələr ötən ay və ya ötən il baş verib. Əslində isə söylənilməsi xoş olan və sevindirici faktdır ki, Azərbaycanın öz dövlət müstəqilliyinə ikinci dəfə qovuşmasının 20 ili tamam olur. Müstəqilliyin məşəqqətlər, məhrumiyyətlər, çətinliklər, siyasi, iqtisadi və hərbi böhranlarla dolu olan ilk illəri bizə bir şəkildə dərs vermişdisə, 1993-cü ilin payızından etibarən biz başqa dərslər aldıq. Müstəqilliyin ilk illərində biz "vur", "tut", "çap", "tala", "çətinlik olan kimi gizlən", "xalqın etirazını eşidəndə aradan çıx" - kimi prinsiplərin (daha doğrusu prinsipsizliklərin) verdiyi dərslərin də şahidi olmuşduq.

Bəzən belə düşünürlər ki, 1988-93-cü illərdə ölkəni "idarə edənlərin" əməllərindən dərs almaq, xalqımıza utanc gətirən həmin hadisələri dərs adlandırmaq mümkün deyil. Bu tezislə qətiyyən razılaşmaq olmaz. Əvvəla, Sokrat deyirdi ki, insan özünün və xalqının həyatında baş verən istənilən hadisədən dərs ala bilmirsə, o, heç zaman kamilləşməyəcək. İkinci, Azərbaycan xalqı həmin hadisələrdən yetərincə dərs almasaydı və mükəmməl nəticə çıxarmasaydı biz bugünkü qüdrətli Azərbaycanı qətiyyən qura bilməzdik. Yeni Azərbaycan Partiyasının yaradılması, ulu öndər Heydər Əliyevin Naxçıvandan Bakıya dəvət edilməsi xalqın ölkədə baş verən ictimai-siyasi proseslərdən aldığı dərsin nəticəsi deyildimi? Əlbəttə, həmin dərslərin nəticəsi idi, özü də ən uğurlu nəticəsi.

Biz 1988-ci ildən sonra ölkə rəhbərliyində olan adamların çoxsaylı anti-milli, anti-Azərbaycan əməllərinin şahidi olduq. Dünya mətbuatı yazırdı ki, Azərbaycanda bir-birinin ardınca üç dövlət başçısı (Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov və Əbülfəz Elçibəy) vəzifə kürsüsünü boş qoyaraq gizlicə qaçıb. Bu diletant adamların gülünc əməlləri özlərinin tərcümeyi-halları ilə yanaşı Azərbaycan tarixinə də yazılıb. Hətta, onların sonuncusu iki dəfə qaçmağa "müvəffəq olmuşdu". Xalq üz qaralığımız olan bu əməllərdən kifayət qədər dərs alaraq öz qətiyyəti, dəyanəti, iradəsi, mətanəti, siyasi uzaqgörənliyi, müdrikliyi, idarəçilik təcrübəsi ilə nəinki Qafqazda və keçmiş SSRİ məkanında, eləcə də bütün dünyada böyük nüfuza malik olan Heydər Əliyevi siyasi hakimiyyətə dəvət etməklə öz dövlətinə və dövlətçiliyinə nicat tapmış oldu. Özündən əvvəlki üç dövlət başçısı ilə müqayisə edilə bilməyəcək şəxsiyyət olan Heydər Əliyevin həyat amalı belə idi: "İnsan öz evini, övladlarını, ata-anasını, öz əmlakını qoruduğu kimi hər bir gənc, hər bir azərbaycanlı, Azərbaycanın hər bir vətəndaşı da eyni zamanda, öz doğma Azərbaycan torpağını, Azərbaycan Respublikasını qorumalı, göz bəbəyi kimi

saxlamalıdır". Fərq göz qabağındadır. Əvvəlkilər imkan düşən kimi qaçmağa, Heydər Əliyev isə Vətəni göz bəbəyi kimi qorumağa çağırırdı.

Məhz ulu öndərin həmin qətiyyətinin və xalqa, dövlətə, dövlətçiliyə sədaqətinin nəticəsidir ki, biz bərpa etdiyimiz dövlət müstəqilliyinin ikinci dəfə əldən getməsi təhlükəsindən xilas olduq. Məhz Heydər Əliyevin siyasi müdrikliyinin nəticəsidir ki, gənc müstəqil Azərbaycan qısa müddət ərzində regionda və bütün dünyada özünün dostlarını və tərəfdaşlarını çoxaltdı, cəbhədə atəşkəsə, ölkə daxilində siyasi sabitliyə, iqtisadiyyatın tənəzzüldən çıxarılmasına nail oldu.

Ümummilli lider çox yaxşı bilirdi ki, müstəqilliyi qorumaq, iqtisadiyyatı dirçəltmək, xalqın rifahının yaxşılaşdırılmasına nail olmaq üçün ilk növbədə ölkənin təbii sərvətlərindən, eləcə də respublikamızın geosiyasi mövqeyindən bəhrələnmək lazımdır. Ancaq bu zaman biz milli maraqlarımızı və dövlətimizin mənafelərini hər şeydən üstün tutmalı idik. Çünki həmin illərdə Azərbaycan çox böyük sınaqlar qarşısında idi. Siyasət dahisi olan Heydər Əliyevin fenomenal uzaqgörənliyi Azərbaycanı həmin sınaqların hamısından üzüağ çıxartdı. Xəzərin Azərbaycan sektorundakı karbohidrogen ehtiyatlarının müştərək işlənməsi üçün dünyanın aparıcı neft şirkətlərinin yaratdığı konsorsiumla Azərbaycan Dövlət Neft Şirkəti arasında imzalanan "Hasilatın pay bölgüsü" adlı saziş - sonradan avropalılar o sənədi "Əsrin müqaviləsi" adlandırdılar - sözün həqiqi mənasında Azərbaycanın dövlət müstəqilliyinin qorunmasının qarantına çevrildi. Doğrudur, tarixçilər bu fikirdədirlər ki, Azərbaycanın dövlət müstəqilliyinin qorunması üçün atılan ən böyük addım Heydər Əliyevin Naxçıvandan Bakıya dəvət edilməsi idi. Ancaq ulu öndərin özü dönə-dönə qeyd etmişdi ki, biz "Əsrin müqaviləsi"nə nail olmaqla təkcə böyük məbləğdə iqtisadi imkan əldə etmədik, həm də gənc, müstəqil dövlətimiz üçün çox böyük siyasi dayaq qazandıq ki, bu da bizim suverenliyimizin, müstəqilliyimizin əbədiləşdirilməsinin təməli oldu. Yeri gəlmişkən, ulu öndər "Əsrin müqaviləsi" haqqında danışarkən qeyd etməyi vacib sayırdı ki, bu sazişin hazırlanmasında, ümumiyyətlə - ölkənin yeni neft strategiyasının işlənib ərsəyə gətirilməsində onun ən yaxın silahdaşı həmin illərdə Dövlət Neft Şirkətinin xarici əlaqələr üzrə vitse-prezidenti işləyən İlham Əliyev olmuşdur.

"Heç bir ölkə, ən böyük ölkə də öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz" - deyən Heydər Əliyev ölkə daxilində başladığı hərtərəfli islahatlarla yanaşı dövlətimizin beynəlxalq aləmə inteqrasiyasını da sürətləndirirdi. Elə bir beynəlxalq təşkilat ola bilmədi ki, Azərbaycan onun işində iştirak etməsin. Elə bir beynəlxalq əhəmiyyətli konvensiya yoxdur ki, Azərbaycan bilavasitə Heydər Əliyevin təşəbbüsü ilə ona qoşulmasın. Bütün bunlar ilk növbədə ölkəmizin dövlət müstəqilliyinin əbədiləşdirilməsi üçün zəruri idisə, ikinci növbədə məhz Kremlin milli ayrı-seçkilik siyasətindən bizə miras qalmış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyünün bərpası çərçivəsində həllinə nail olmaq üçün vacib idi. Bütün bunları ən incə məqamlarına qədər dərindən təhlil edən ulu öndər ölkə daxilində apardığı çoxsaylı islahatlar nəticəsində Azərbaycanın Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul edilməsinə nail oldu.

Heydər Əliyevin ölkə daxilində apardığı islahatların mahiyyəti nədən ibarət idi? O, böyük ustalıqla siyasi, hüquqi və iqtisadi islahatların paralel şəkildə aparılmasını təmin etdi: ölkədə əsas insan hüquq və azadlıqlarının qorunması Konstitusiya ilə təsbit edildi. Əsas qanunumuzun 50-dən çox maddəsi bilavasitə bu məsələyə aiddir. Seçki Məcəlləsi Avropa strukturlarını təmsil edən ekspertlər tərəfindən işlənilib hazırlandı, mətbuat üzərindən senzura götürüldü, insanların sərbəst toplaşması təmin edildi, söz, fikir azadlığı, plüralizm hətta bir çox Avropa ölkələrində mövcud olan səviyyədən də yüksək şəkildə bərqərar edildi, ölüm hökmünün icrası dayandırıldı və sonra bu qəbildən olan məhkəmə hökmünün çıxarılması tamamilə ləğv edildi. Ən başlıcası, Azərbaycan beynəlxalq aləm üçün açıq ölkə elan edildi. Bütün bu siyasi məzmunlu islahatlarla yanaşı, ölkədə genişmiqyaslı iqtisadi islahatlara da start verildi. Torpaq öz sahibinə - kəndliyə qaytarıldı, insanlara istədiyi şəkildə sahibkarlıqla məşğul olmaq imkanı verildi, dövlət əmlakı böyük ədalət prinsipləri və qanunvericilik əsasında özəlləşdirildi, özəl bölmənin inkişafını təmin etmək üçün məxsusi qanunlar qəbul edildi və qurumlar yaradıldı.

Təbii ki, bütün bunların inkişaf etmiş ölkələrin təcrübəsi əsasında, ölkə əhalisinin maraqlarına uyğun, milli-mənəvi dəyərlərimizi zidd olmayan şəkildə reallaşdırılması üçün müvafiq qanunvericilik bazası, hüquqi əsaslar olmalı idi. Ona görə də ulu öndər ölkədə siyasi və iqtisadi istiqamətli islahatlarla yanaşı hüquq islahatlarının aparılmasına da start verdi və həmin islahatlar ildən-ilə dərinləşdirildi. Məhz bu proseslərin nəticəsi olaraq yeni əsrin ilk ilinin ilk ayında - 2001-ci ilin yanvarında Azərbaycan Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul edildi. Bu, bizim üçün böyük fəxr və iftixar idi ki, Avropanın paytaxtı kimi qəbul edilən Strasburqda - Avropa Şurasının mənzil-qərargahının önündə Azərbaycan bayrağını məhz 50 milyonluq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev qaldırdı. Həmin məqam yada düşərkən istənilən azərbaycanlı ulu öndər Heydər Əliyevin oradakı qətiyyətli və mərdanə çıxışını xatırlayır: "Biz Avropa ailəsinə öz töhfəmizi verməyə hazırıq... Avropa Şurası Azərbaycana nə qədər lazımdırsa, Azərbaycan da Avropa Şurasına bir o qədər lazımdır".

Biz aşağıda Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyevin Müstəqil Azərbaycana beynəlxalq aləmdə yeni nüfuz qazandırması barədə söz açacağıq. Ancaq indi söhbətin bilavasitə Avropa Şurası ilə bağlı getdiyini nəzərə alaraq qeyd etmək istəyirik ki, Azərbaycan Milli Məclisinin Avropa Şurası Parlament Assambleyasındakı ilk daimi nümayəndə heyətinin rəhbəri, deputat İlham Əliyevin prinsipiallığı, təşəbbüskarlığı, Avropa dəyərlərinə dərindən bələd olması və bir neçə Avropa dilində sərbəst olaraq debatlara çıxmaq məharəti nəticəsində AŞPA Ermənistanı işğalçı dövlət kimi tanıyan ilk rəsmi sənəd qəbul etmişdi. Eyni zamanda, Heydər Əliyevin bütün xarici səfərlərdə xüsusi önəm verdiyi Azərbaycan diasporunun təşkilatlanması məsələsinin davamı olaraq deputat İlham Əliyev AŞPA-dakı fəaliyyəti dövründə Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyət göstərməsinin təməlini qoymuşdu.

Beləliklə, Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması missiyasının icrasını, suverenliyin əbədiləşdirilməsi üçün ilk və uğurlu addımların atılmasını ulu öndər Heydər Əliyev təmin etdi. Ölkəmizə beynəlxalq aləmdə yeni nüfuz qazandırmaq, müstəqil Azərbaycanı inkişaf etmiş ölkələr sırasına çıxarmaq, rəsmi Bakının bütün beynəlxalq təşkilatlarda söz sahibinə çevrilməsini təmin etmək, Azərbaycana "Qafqazın lider ölkəsi" imicini qazandırmaq kimi bir çox missiyaları məhz ulu öndərin siyasi kursunun davamçısı İlham Əliyev yerinə yetirdi. Son yeddi ildə Azərbaycan adambaşına düşən ümumi daxili məhsul istehsalının artımına, iqtisadi artım tempinə, əlverişli biznes mühiti yaradılmasına, xarici sərmayələrin qorunması üçün mövcud olan hüquqi bazanın təminatına və bir çox başqa məsələlərə görə bütün dünyada ilk ölkələrdən birinə çevrilib. Məhz İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə Azərbaycanda 9 mindən artıq yeni iş yeri yaradılıb, əhalinin yoxsulluq səviyyəsi 49 faizdən 9 faizə qədər azaldılıb (bəzi avropa ölkələrində bu göstərici hələ də 30 faizdən çoxdur), iki mindən çox yeni məktəb binası, onlarla səhiyyə, mədəniyyət ocağı. Olimpiya İdman Kompleksi, paytaxt başda olmaqla ölkənin bütün regionlarında çoxsaylı körpü və yol qovşağı tikilib, kosmosa ilk Azərbaycan rabitə peykinin çıxarılması üçün hazırlıq işləri başa çatdırılıb.

Bütün bunlar Azərbaycan həqiqətləridir. Ancaq ən böyük həqiqət odur ki, bu gün Azərbaycanı Heydər Əliyev siyasəti, Heydər Əliyev siyasi kursunun davamçısı və ulu öndərin Naxçıvanda - bütöv Azərbaycanın və Muxtar Respublikanın ağır günlərində ərsəyə gətirdiyi Yeni Azərbaycan Partiyası inkişaf etdirir, irəli aparır. Platon yazırdı ki, kiminsə üstünü örtəcəyi, insanlardan gizlədəcəyi iki məfhum vardır - Günəş və Həqiqət. Heç kəsin dana bilməyəcəyi, heç kəsin inkar edə bilməyəcəyi digər həqiqət isə ondan ibarətdir ki, ulu öndərin nəinki siyasi irsi, siyasi kursunu davam etdirən Prezident, hətta, onun adını daşıyan Heydər Əliyev Fondu da Azərbaycanın inkişafına və tərəqqisinə möhtəşəm töhfələr verir. Fondun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən istənilən layihə ölkəmizdə və beynəlxalq aləmdə möhtəşəm bir dəstək qazanır. Xüsusən, "Yeniləşən Azərbaycana yeni məktəb binası" layihəsi Azərbaycanın daha aydın sabahının təmin edilməsi üçün çox mükəmməl bir addımdır.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 20 illiyi qarşısında qələmə aldığımız bu yazıda son olaraq iki məsələni də qısa şəkildə yada salmaq istəyirəm. Birincisi fəaliyyət göstərdiyim sahə - təhsil sistemi barədədir. Belə ki, son 17 ildə Azərbaycan təhsili özündən əvvəlki 50-60 ildəkindən çox inkişaf edib. Son 7 ildə isə milli təhsilimizin inkişafına xidmət edəcək 17 Dövlət Proqramı təsdiq olunub və icra edilir. Bu gün Azərbaycanda dövlət büdcəsindən ən çox vəsait ayrılan birinci sahə ordu quruculuğudursa, ikinci sahə təhsil sistemidir. Haqqında yığcam söz açmaq istədiyim digər məsələ isə ölkəmizdə istənilən inkişaf etmiş ölkədə olduğundan da yüksək səviyyədə təmin edilmiş gender siyasətidir. Bu gün Azərbaycanda cəmiyyət həyatının elə bir sahəsi yoxdur ki, orada çalışan qadınların sayı ildən-ilə deyil, aydan-aya artmasın. Bizim çalışdığımız təhsil sistemində də belədir, regionun ən böyük siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasında da. Biz məmnunuq ki, Azərbaycan öz dövlət müstəqilliyinin bərpasının 20 illiyinə çox böyük siyasi, iqtisadi, elmi və mədəni uğurları ilə gəlir. Onu da fəxrlə qeyd edirik ki, ölkəmizin əldə etdiyi çoxsaylı uğurlarda Şərqin ən mübariz qadınları olan Azərbaycan xanımlarının xidməti də böyükdür, danılmazdır. Biz ölkəmizin bu günündən əmin, sabahından isə arxayınıq. Çünki böyük maarifçi mütəfəkkir Abbasqulu Ağa Bakıxanovun dediyi kimi, doğruluğa adət etmiş adamlar həmişə təşviş və qorxudan uzaq, əmin və arxayın olurlar.

**“Xalq qəzeti”.-**2011.-20 mart.-N 63.-S.5.

# YENİLƏŞƏN AZƏRBAYCAN HEYDƏR ƏLİYEVİN HƏYAT AMALI İDİ

**Süleyman İSMAYILOV,**
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının şöbə müdiri,
YAP Siyasi Şurasının üzvü

**Bəşəriyyətin inkişaf tarixini, dünya ölkələrinin keçdiyi çətin və mürəkkəb tərəqqi yolunu izlədikcə, danılmaz bir həqiqətin şahidi oluruq. Bu həqiqət ondan ibarətdir ki, zamanla ayaqlaşan, inkişafa can atan, keçmişinə qapılıb qalmayan xalqlar, toplumlar sonradan itirilən hər ilin, hər günün əzabını çəkmir, necə deyərlər, tarixin yedəyində sürünməyə, həmişə öndə gedənlərin ardınca boylanmağa məcbur olmurlar. O xalqlar, o ölkələr xoşbəxtdirlər ki, onlar daim irəliyə baxır, öz tarixi ənənələrini unutmadan müasir dünyanın sərt rəqabət qanunlarını, sivil normalarını qəbul edir, dünya dövlətləri arasında öz yerini tutmaq üçün yorulmadan səy göstərir və bunu bacarırlar. Əlbəttə, bu işdə xalqlara, ölkələrə rəhbərlik edən tarixi şəxsiyyətlərin, müasir və qlobal düşüncə tərzinə sahib olan dövlət başçılarının rolu az deyildir.**

Bu baxımdan Azərbaycan xalqının keçdiyi çətin və mürəkkəb inkişaf yoluna işıq saçan, onun bugünkü müstəqilliyinin yaranmasında və inkişafında, müasirləşməsində və yeniləşməsində müstəsna xidmətləri olan Heydər Əliyev fenomenini xüsusi qeyd etmək lazımdır. Özünün 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına müraciətində qeyd etdiyi kimi, bütövlükdə respublikaya 34 il, o cümlədən müstəqilliyini bərpa etdikdən sonra 10 il rəhbərlik etmiş bu böyük şəxsiyyətin bütün həyatının amalı öz varlığı qədər sevdiyi Azərbaycan xalqına, dövlətçiliyinə, ölkənin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur.

Ulu öndər Heydər Əliyev XX əsrdə baş verən dəyişiklikləri təhlil edərək 2000-ci ilin sonunda söylədiyi nitqlərin birində deyirdi: "XX əsr bəşər tarixində dünyada elmin, mədəniyyətin, elmi-texniki tərəqqinin inkişafında xüsusi yer tutur. Bu, dünyanın bütün ölkələrinə, xalqlarına aiddir. Ancaq təbiidir ki, hər ölkə, hər millət, hər xalq bu əsri yaranmış tarixi şərait içərisində keçirmiş, kimsə çox nailiyyətlər əldə etmiş, daha da irəliyə getmiş, kimsə vaxt itirmişdir. Ancaq bunlara baxmayaraq, minillik tarixdə XX əsr bəşəriyyət üçün ən uğurlu əsr olmuşdur".

XX əsrin son 30 ilində Azərbaycanın bilavasitə ulu öndərin rəhbərliyi altında yaşadığını və böyük tarixi hadisələrlə zəngin olduğunu nəzərə alaraq bu əsrdə ölkəmizin keçdiyi yola verilən qiymət də maraqlıdır. Ümummilli liderimiz bu əsrdə xalqımızın bir tərəfdən böyük çətinliklərlə, faciələrlə qarşılaşmasına baxmayaraq, eyni zamanda böyük nailiyyətlər qazandığını, inkişaf etdiyini, dünya sivilizasiyası səviyyəsinə yüksəldiyini, nəhayət, əsrin sonunda çoxəsrlik arzularına çataraq müstəqilliyini bərpa etdiyini xüsusi qeyd edirdi.

Azərbaycan istər Sovetlər İttifaqının tərkibində olarkən, istərsə də müstəqilliyini bərpa etdikdən sonra məhz Heydər Əliyevin səyləri ilə sürətli inkişaf yolu keçmiş və ulu öndərin qeyd etdiyi kimi, bir neçə il ərzində beynəlxalq aləmdə öz layiqli yerini tutmuşdur. Heydər Əliyev və onun bu gün də davam edən siyasəti Azərbaycanın müasirləşməsinin və yeniləşməsinin əsasıdır desək, heç bir səhvə yol verməik.

Azərbaycan Respublikasının Prezidenti, Heydər Əliyev siyasətinin layiqli davamçısı, onun axıra çatdıra bilmədiyi işləri uğurla yerinə yetirən İlham Əliyev ulu öndərin Azərbaycana yenidən rəhbərlik etdiyi 1993-2003-cü illəri səciyyələndirərək deyir: "1993-2003-cü illər ölkəmizin gələcəyi üçün həlledici illər olmuşdur. On il ərzində görülmüş işlər bir əsr ərzində görülmüş işlərə bərabərdir".

Böyük dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi həmin illər ərzində Azərbaycanın müasir dünya birliyinə inteqrasiyası daha intensiv və dönməz xarakter almış, Azərbaycan irimiqyaslı beynəlxalq layihələrə qoşulmuş, dünya xalqları ailəsinin tam hüquqlu üzvünə çevrilmiş, bəşəriyyət qarşısında duran problemlərin həllində yaxından iştirak etməyə başlamışdır.

Hələ Sovet İttifaqının tərkibində olarkən Azərbaycana rəhbərlik edən Heydər Əliyev o dövrdə yaranmış imkanlardan istifadə edərək respublikada ən yeni sənaye sahələrinin yaradılmasına, onun aqrar respublikasından aqrar-sənaye respublikasına çevrilməsinə, respublikanın zəngin enerji ehtiyatlarının yaradılmasına, Azərbaycanın güclü elm potensialının, gələcək üçün zəruri olan mütəxəssislərin, yeni düşüncəli kadrların yetişdirilməsinə xüsusi əhəmiyyət verirdi.

1969-cu ildən sonra Heydər Əliyevin təşəbbüsü və səyləri ilə respublikada onlarla yeni müəssisə açılmış, 250-dən artıq sənaye müəssisəsi işə salınmışdı. O illərdə xalq təsərrüfatının artım sürəti orta ittifaq səviyyəsindən xeyli yüksək idi, təkcə istehsal edilən milli gəlir 2,6, sənaye məhsulunun həcmi 2,7, kənd təsərrüfatı məhsullarının həcmi 2,3 dəfə artmışdı. O dövrdə işə salınan müəssisələr ölkənin sənaye potensialını xeyli artırmış, Azərbaycanda neft maşınqayırması, məişət kondisionerləri, elektrik mühərrikləri, elektromaqnit

avadanlığı, soyuducular, sintetik kauçuk, boru-prokat müəssisələri yaradılmışdı ki, bunlar respublika üçün yeni və müasir sahələr idi.

Heydər Əliyev 2000-ci ilin sonunda Dövlət Neft Akademiyasının 80 illiyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycanın əvvəlki tarixinə nəzər salaraq deyirdi: "Təbiidir, Azərbaycan qədimdə aqrar ölkə olubdur - dünyadakı ölkələrin hamısı qədim dövrdə aqrar ölkələr olublar - sənaye sonra inkişaf etməyə başlayıbdır. Amma keçmiş SSRİ-nin tərkibində olmuş başqa respublikalara nisbətən Azərbaycan daha əvvəl aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevrilibdir. Ona görə də öz müstəqilliyimizi əldə edən zaman bizim heç bir problemimiz yox idi. Çünki Azərbaycanın inkişaf etmiş böyük sənaye kompleksi və bu sənaye kompleksini səmərəli işlədə bilən mühəndis, texnik, alim kadrları vardır".

Ulu öndər Azərbaycanın XX əsrdə qazandığı nailiyyətlərdən ən böyüyünün xalqın kütləvi surətdə təhsil alması, bütün sahələrdə milli kadrların, milli mütəxəssislərin yaranması olduğunu qeyd edirdi. Təsadüfi deyildir ki, sovet hakimiyyəti dağıldıqdan sonra bir daha aydın oldu ki, Azərbaycanda yaradılmış iqtisadi potensial onun müstəqil yaşamasına imkan verir. Rusiyadan başqa digər sovet ölkələrində bu potensial yox idi.

Azərbaycanın müstəqillik illərində bütün sahələrdə inkişafına təkan verən, bunun üçün lazımi maddi imkanlar yaradan əsas amillərdən biri Heydər Əliyevin hazırlayıb uğurla həyata keçirdiyi yeni neft strategiyası olmuşdur. Bu strategiyanın bünövrəsi hələ sovet dövründən qoyulmuş, onu həyata keçirmək üçün lazımi texniki baza, güclü kadr potensialı yaradılmışdır. Heydər Əliyev bunu xüsusi qeyd edirdi: "Azərbaycanın yeni neft strategiyasının həyata keçirilməsi indiyə qədər bizim 10 illərlə gördüyümüz işlərin nəticəsidir". Məhz bu strategiyanın reallaşması nəticəsində Azərbaycan beynəlxalq miqyasda əsas enerji ixracatçılarından birinə çevrilmiş, respublikaya ən qabaqcıl texnologiyalar gətirilmiş, dünyanın ən güclü və müasir şirkətləri Azərbaycana investisiyalar yatırmış, əldə edilən gəlirlər respublikada digər sahələrdə yeni texnologiyaların tətbiqinə şərait yaratmışdır.

Ulu öndər neft strategiyasının mahiyyətini izah edərək deyirdi: "Neft strategiyasının istiqamətlərindən biri də budur ki, biz müəyyən bir dövrdə ayrı-ayrı dünya şirkətləri ilə əməkdaşlıq edərək, təcrübə toplayıb, vəsait əldə edib, müasir texnikanı, texnologiyanı mənimsəyib işlərin çoxunu gələcəkdə özümüz görməliyik. Ancaq bunun üçün bax, bu keçid dövrü lazımdır". Heydər Əliyev sevinirdi ki, qabaqcıl neft şirkətlərinin burada gördüyü işlərin əksəriyyətini milli kadrlarımız aparır.

Heydər Əliyevin müasirləşmə konsepsiyasından danışarkən ilk növbədə onun dövlət quruculuğu sahəsində apardığı böyük islahatlardan bəhs etmək lazımdır. 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə gələn Heydər Əliyev ölkənin həyatı üçün ən vacib olan məsələni həll edə bildi. Ölkədə sabitlik yaradıldı, hərc-mərclik aradan qaldırıldı, daxili və xarici düşmənlərin Azərbaycan dövlətçiliyinin məhvi üçün göstərdiyi səylərin, həyata keçirdiyi təxribatların qarşısı qətiyyətlə alındı. Bunun nə dərəcədə vacib olduğunu Heydər Əliyevin bu sözləri daha düzgün, daha dəqiq ifadə edir: "Yalnız milli birliyə, ictimai-siyasi sabitliyə malik, iqtisadiyyatı dinamik inkişaf edən, güclü dövlət təsisatları olan, demokratik və vətəndaş cəmiyyətinə əsaslanan müstəqil dövlətlə hər şeyi, o cümlədən ərazi bütövlüyü və digər məsələləri həll etmək olar. Əminəm ki, bu, məhz belə də olacaq".

Milli birliyi və sabitliyi əbədi qoruyub saxlamağın yalnız ölkədə hüquqi və dünyəvi dövlət qurmaq əsasında mümkünlüyünü Heydər Əliyev çox gözəl bilir və bunun üçün cəmiyyətin bütün aparıcı qüvvələrini səfərbər edirdi. Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanan yeni Konstitusiyamız buna əyani nümunədir. O bilirdi ki, demokratik, hüquqi, dünyəvi dövlət qurmaq bir ilin, iki-üç ilin işi deyildir. Bunun üçün zaman, dövr lazımdır, dünya təcrübəsindən istifadə etmək və onu öyrənmək lazımdır. Eyni zamanda öz milli xüsusiyyətlərimizi, xalqımızın, ölkəmizin, dövlətimizin özünəməxsus cəhətlərini nəzərə alaraq yeni dövlət qurmağı əsas vəzifə kimi qarşıya qoyurdu və deyirdi: "İndi ən ümdə vəzifəmiz, ən şərəfli borcumuz hüquqi, dünyəvi, demokratik dövləti yaratmaqdır. Bu işdə hamımız çalışmalıyıq, bir olmalıyıq. Siyasi dünyabaxışından asılı olmayaraq, - kim hansı partiyaya mənsubdur, hansı siyasi dünyabaxışı var - bundan asılı olmayaraq, bu məqsəddə biz hamımız bir olmalıyıq. Azərbaycanın başqa yolu yoxdur. Azərbaycan başqa yolla getməyəcək".

Xalqının, millətinin gələcək taleyini düşünən, onun əldə etdiyi müstəqilliyin əbədiliyinin qoruyub saxlanmasının vacibliyini heç vaxt unutmayan Heydər Əliyev bunun üçün demokratik dövlətin qurulmasının əsas şərt olduğunu daim vurğulayır və bunu qətiyyətlə həyata keçirirdi. Öz çıxışlarında bunu xüsusi qeyd edirdi ki, biz demokratik dövləti Qərbə, yaxud kiməsə xoş gəlmək, kimdənsə tərif eşitmək üçün yox, Azərbaycan xalqının özü üçün qururuq, Azərbaycanın xoş gələcəyi üçün qururuq.

Şübhə yoxdur ki, hüquqi dövlətin əsasını onun Konstitusiyası təşkil edir. Məhz bu əsas qanun Azərbaycanda sonradan aparılan bütün islahatların bünövrəsini qoydu. Onun müddəaları əsasında 1995-ci ildən sonra onlarla, yüzlərlə yeni qanunlar qəbul edilmiş, həyatın bütün sahələrini tənzimləyən normativ hüquqi aktlar təsdiq edilmişdir.

Heydər Əliyev 1996-cı il fevralın 2-də keçirilən Birinci Gənclər Forumunda yeni Konstitusiyamızın əsas mahiyyətini izah edərək göstərirdi ki, əvvəlki Konstitusiya Kommunist Partiyasının ideologiyasını, ideoloji prinsiplərini əks etdirən bir sənəd idi. O, gənclərə Azərbaycanın yeni Konstitusiyasının bütün müddəalarını, xüsusilə vətəndaşların vəzifələrinə və hüquqlarına aid hissələrini dərindən öyrənməyi tövsiyə edərək deyirdi: "Müstəqilliyi yaşatmaq, qorumaq üçün, Konstitusiyamızda əks olunduğu kimi, Azərbaycanda dövlət quruculuğu ilə ciddi məşğul olmaq lazımdır. Biz Konstitusiyamızda yazmışıq və bu, heç vaxt pozula bilməz. Azərbaycanda hüquqi, demokratik, sivilizasiyalı, dünyəvi dövlət qururuq. Dövlət quruculuğu prosesi gedir və gedəcək və mən tam əminəm ki, biz Azərbaycanda hüquqi, demokratik dövləti tamamilə qurub, onu dünya demokratiyası səviyyəsinə çatdıra biləcəyik".

Əgər 1993-cü ildən başlayan quruculuq işləri, aparılan islahatlar, ölkə iqtisadiyyatının canlandırılması olmasaydı, Azərbaycanın sonrakı daha sürətli inkişafından söz açmaq belə olmazdı. Bu illər Azərbaycanın inkişafında keçid dövrü kimi səciyyələnirdisə, artıq 2009-cu ildə ölkə Prezidenti İlham Əliyev görülən işlərə yekun vuraraq bildirirdi ki, Heydər Əliyevin ideoloji əsasları Azərbaycanda tam şəkildə bərqərar olmuş, güclü dövlət, güclü iqtisadiyyat, xalqımızın milli ideya ətrafında birləşməsi, azərbaycançılıq fəlsəfəsi, azərbaycançılıq ideologiyası güclü milli-mənəvi dəyərlər əsasında müasir dövlətin qurulması prosesləri uğurla davam etmiş və artıq Azərbaycan keçid dövrünü başa vurmuşdur.

Heydər Əliyevin Azərbaycanın müasir iqtisadiyyatını, müasir idarəetmə sistemini yaratmaq üçün gördüyü işləri sadalayarkən onun apardığı iqtisadi islahatlar üzərində xüsusi dayanmaq lazımdır. Məhz onun rəhbərliyi altında hazırlanıb həyata keçirilən özəlləşdirmə proqramları əsasında Azərbaycanda yeni iqtisadi münasibətlər yaranmış, ölkə iqtisadiyyatının hazırda çox böyük bir hissəsini təşkil edən özəl müəssisələr formalaşmış, Azərbaycana müasir tələblərə uyğun olan yeni texnologiyalar gətirilmiş və beynəlxalq standartlara uyğun məhsulların istehsalına başlanmışdır.

Heydər Əliyevin iqtisadi islahatlarının ikinci mühüm qolunu kənd təsərrüfatının dirçəlməsinə və inkişafına təkan verən torpaq islahatlarının aparılması, əvvəlki kolxoz və sovxozlara məxsus mülkiyyətin bilavasitə vətəndaşların ixtiyarına verilməsi, kənd sakinlərinin uzun illər arzusunda olduğu torpağın əsl sahibinə çevrilməsi təşkil edirdi.

Ümummilli liderin bu işlərin həyata keçirilməsinə və başa çatdırılmasına şərait yaradan idarəetmə sisteminin qurulması üçün apardığı islahatlar da Azərbaycanın müasirləşmə konsepsiyasının tərkib hissəsi sayıla bilər. Keçmiş sovet dövrünün iqtisadiyyatında olan bəzi müsbət cəhətləri əxz etməklə yeni iqtisadi münasibətləri formalaşdıran idarəetmə sistemi yaradılması vacib məsələlərdən biri idi. Bu məqsədlə Azərbaycanda mövcud olan bir çox idarəetmə orqanları ləğv edilmiş, onların əvəzinə müstəqil dövlətin zəruri qurumları - müxtəlif nazirliklər, komitələr, səhmdar cəmiyyətləri, xidmətlər, agentliklər və digər idarəetmə orqanları yaradılmışdır.

Dövlət qulluğunun tamamilə yenidən qurulması da Azərbaycanın müasirləşməsinə xidmət etmiş və ölkənin dünya təcrübəsindən daha fəal bəhrələnməsinə şərait yaratmışdır. Keçmiş partiya və sovet nomenklaturu prinsipindən imtina etməklə yeni dövlətin yeni idarəetmə prinsiplərinin formalaşdırılması zamanın və dövrün tələbi idi. Bu sahədə ulu öndərin başladığı işlər uğurla davam etdirilmiş, bu gün artıq dövlət qulluğunun müasir mexanizmi yaradılmış, bu kateqoriyadan olan insanların hüquq və səlahiyyətləri, vəzifələri, məsuliyyəti, sosial müdafiəsi və digər cəhətləri qanunvericiliklə təsbit edilmişdir.

Ümummilli liderin fəaliyyəti nəticəsində Azərbaycan 1993-2003-cü illərdə böyük inkişaf yolu keçmiş və özünü müstəqil bir dövlət kimi dünyaya tanıda bilmişdir. Heydər Əliyev 2003-cü ildə Azərbaycan xalqına etdiyi müraciətində bu illərə sanki yekun vuraraq bildirirdi: "Müstəqil dövlətimiz bu gün dünya ölkələrinin ən qabaqcıl təcrübələrindən və dəyərlərindən bəhrələnərək inkişaf edir. Demokratik cəmiyyət, hüquqi dövlət, insan və vətəndaş haqlarının aliliyi, siyasi plüralizm prinsiplərini rəhbər tutaraq, Azərbaycan Avropanın və dünyanın ən qabaqcıl, qüdrətli dövlətləri ilə çiyin-çiyinə fəaliyyət göstərir".

Lakin ulu öndər bir çox arzularını da hələ yerinə yetirə bilmədiyini qeyd edərək bunların sonrakı nəsillər, o cümlədən onun şərəfli işlərini davam etdirən, o zaman Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini, prezidentliyə namizəd olan İlham Əliyev tərəfindən davam etdiriləcəyini də xüsusi vurğulamışdı. O, Azərbaycan xalqına üz tutaraq cənab İlham Əliyev haqqında deyirdi: "O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. ...İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ulu öndərin çox haqlı olduğunu və onun ümidlərinin doğrulduğunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-cü ildə prezident seçildikdən sonra gördüyü işlər, respublikanın iqtisadi və sosial inkişafı sahəsində əldə edilən nailiyyətlər, Azərbaycanın beynəlxalq miqyasda gündən-günə irəliləməsi bir daha təsdiq

edir. Azərbaycanın müasirləşmə və modernləşmə konsepsiyasını daha da zənginləşdirən və onu daha sürətlə həyata keçirən ölkə Prezidenti İlham Əliyev bu məqsədlə ilk gündən böyük əzmkarlıq göstərmiş, Azərbaycanın hər bir sahədə inkişafını təmin etmək üçün konkret proqramlar hazırlayıb həyata keçirməklə son illərdə Azərbaycanı daha güclü, daha sivil dövlətə çevirmiş, dünya ölkələrinin ən son nailiyyətlərinin, ən müasir texnologiyalarının respublikaya gətirilməsi üçün böyük işlər görmüşdür.

Azərbaycanda ulu öndərin tövsiyələrinə uyğun olaraq görülən işləri ölkə Prezidenti "Mir" Dövlətlərarası Teleradio Şirkətinə müsahibəsində belə qiymətləndirmişdir: "Ölkənin modernləşdirilməsi, iqtisadiyyatın gələcəkdə bizə böyük artım verəcək sektorlarına, ilk növbədə, informasiya-kommunikasiya texnologiyaları sahəsinə sərmayənin qoyulması baxımından da çox iş görülmüşdür. Biz kosmik sənaye yaradırıq. Gələn il Azərbaycanın ilk süni peyki orbitə çıxarılacaqdır. Yəni, biz daim irəliyə baxırıq. Ola bilsin ki, bir neçə addım irəliyə baxırıq. Bizim külli miqdarda neft və qaz ehtiyatlarımızın olmasına baxmayaraq, istəyirik ki, Azərbaycanın davamlı inkişafı neftin qiymətindən və yaxud hasilatımızın həcmindən asılı olmasın. "Qara qızıl"ın insan kapitalına çevrilməsi bizim təcrübəmizdə, sadəcə, şüar deyil, real vəziyyətdir".

Bu məqsədin reallığa çevrilməsi üçün görülən işlər sırasında respublika gənclərinin təhsilinə verilən diqqəti, hər il dövlət hesabına minlərlə azərbaycanlı gəncin dünyanın aparıcı dövlətlərində, ən güclü ali məktəblərində təhsil almaq üçün göndərilməsini ayrıca qeyd etmək lazımdır. Azərbaycanın bugünkü inkişafını vaxtilə ulu öndər Heydər Əliyevin səyləri hesabına hazırlanmış mütəxəssislər təmin etmişdisə, daha gözəl gələcəyini bu gün dünya elminin qabaqcıl nailiyyətlərini öyrənən gənc nəsil təmin edəcəkdir. Yeni biliklər, yeni dünyabaxışı, yeni arzu və istəklərlə Vətəninə qayıdan bu gənclər ölkə Prezidentinin qurduğu yeni Azərbaycanın əsas aparıcı qüvvəsi olacaqdır.

Ölkə Prezidentinin Azərbaycanın inkişafına müasir yanaşma prinsipləri bir daha Heydər Əliyev ideyalarının davamıdır. Dövlətimizin başçısı, təbii ehtiyatları, o cümlədən neft və qaz ehtiyatları az olan ölkələrin əldə etdiyi iqtisadi tərəqqini misal gətirərək Azərbaycanda da neftdən əldə edilən böyük gəlirlərin bizi arxayınlaşdırmadığını, bunu inkişafımızın əsas vasitəsi hesab etmədiyini bildirmişdir. Ölkə başçısı dəfələrlə vurğulamışdır ki, biz elə işləməliyik ki, sanki bizim neftimiz və qazımız yoxdur. Azərbaycanda qəbul edilən və həyata keçirilən proqramlar məhz bu məqsədə xidmət edir. Dünya ölkələrinin müsbət təcrübəsi nəzərə alınmaqla tətbiq edilən bu proqramlarda ölkənin modernləşdirilməsi və illik fəaliyyət planı müəyyən edilmişdir.

İlk baxışda keçmiş sovet dövrünün planlı iqtisadiyyatını xatırladan bu proqramlar heç də keçmişin təkrarı deyildir. Çünki bu proqramlarda hər bir sahə üzrə konkret fəaliyyət planı, kimin nə iş görəcəyi, kimin nəyə cavabdeh olması, maliyyə resursları və konkret müddətlər göstərilir. Bu proqramlara vaxtaşırı dəyişikliklər edilərək Azərbaycanda müasir elmi-texniki tərəqqinin son nailiyyətlərinin tətbiqi üçün lazımi şərait yaradılır. Görülən tədbirlər öz nəticəsini verir və bundan sonra da verəcəkdir. Dünya ölkələrinin bir çoxu iqtisadi böhran nəticəsində böyük çətinliklərlə üzləşməsinə, ümumi daxili məhsul istehsalında geriləməyə məruz qaldığı halda, Azərbaycan iqtisadiyyatı 2009-cu ildən əvvəlki yüksək templərlə olmasa da, daim müsbət dinamika ilə inkişaf etmiş və edəcəkdir.

Bu proqramlardan Ərzaq təhlükəsizliyi proqramını xüsusilə qeyd etmək vacibdir. Artıq Azərbaycan əsas kənd təsərrüfatı məhsulları ilə özünü, demək olar ki, tam təmin edir. Onun idxaldan asılılığı azalır. Çünki bu və digər proqramlar neft və qaz gəlirlərindən səmərəli istifadə edilməklə, Azərbaycanın öz təbii ehtiyatları və xammal bazası nəzərə alınmaqla hazırlanıb həyata keçirilmişdir. Bütün bunlar Azərbaycanı MDB, o cümlədən digər dövlətlər arasında özünü təmin edən, yalnız özünə güvənən, heç kəsdən maddi və digər kömək ummayan bir ölkəyə çevirmişdir.

Düşünülmüş, çevik daxili və xarici siyasət beynəlxalq mövqelərimizi daha da gücləndirmiş, respublikanın iqtisadi inkişafına dövlət tərəfindən qoyulan və xaricdən cəlb edilən investisiyalar hesabına sənaye potensialı inkişaf etmiş, idxal azalmış, yerli istehsalın artırılması üçün əməli tədbirlər görülmüş və hər bir ölkənin inkişafı üçün mühüm olan üç amil - enerji təhlükəsizliyi, nəqliyyat və ərzaq təhlükəsizliyi təmin edilmişdir. Göründüyü kimi, Heydər Əliyevin hələ sovet dövründə yaratdığı zəmin üzərində Azərbaycanın özünü hər cəhətdən təmin etməsi strategiyası bu gün artıq reallığa çevrilir.

Azərbaycanda gedən proseslərdən, əldə edilən nailiyyətlərdən danışarkən aparılan siyasi islahatların da əhəmiyyətini qeyd etməmək olmaz. Heydər Əliyevin başladığı siyasi islahatlar son illərdə ardıcıl davam etdirilmiş, dövlətin idarə edilməsinin daha çevik mexanizmi yaradılmış, bütün sahələrdə şəffaflığın artırılmasına ciddi əhəmiyyət verilmişdir. Zəngin karbohidrogen ehtiyatlarının satışından ölkəyə daxil olan vəsaitin düzgün yerləşdirilməsi və yalnız Azərbaycanın gələcək inkişafına təkan verən layihələrin maliyyələşdirilməsi, bu barədə vaxtaşırı xalqa məlumat verilməsi, Dövlət Neft Fondunun büdcəsi haqqında geniş informasiyanın dərc edilməsi beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilmiş və bu təcrübədən istifadə edilməsi digər ölkələrə də tövsiyə olunmuşdur. Dövlət başçısı ölkədə yaradılan şəffaflığın vacibliyini qeyd edərək demişdir:

"Bu şəffaflıq ilk növbədə bizə lazımdır, Azərbaycan xalqına, Azərbaycan dövlətinə lazımdır. Bu şəffaflıq hər yerdə olmalıdır. Bütün maliyyə sahəsində, iqtisadi sektorda maksimum dərəcədə şəffaflıq olmalıdır ki, biz öz imkanlarımızdan maksimum dərəcədə səmərəli istifadə edək".

Ölkə Prezidentinin 2004-2008-ci illər üzrə regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının yekunlarına həsr olunmuş konfransda qeyd etdiyi kimi, inkişaf etmiş bütün ölkələrin əldə etdiyi uğurlar, ilk növbədə, iqtisadiyyatın səmərəliliyini, şəffaflığı, demokratik əsasları gücləndirmək, köklü islahatlar aparmaq, texnoloji tərəqqi və təhsili inkişaf etdirmək sayəsində mümkün olmuşdur.

Hazırda ölkədə mənəvi iqlimin daha da saflaşdırılması, cəmiyyətimizin inkişafına mane olan neqativ halların, o cümlədən rüşvətxorluq və korrupsiya hallarının kökünün kəsilməsi, ölkəmizin imicinə xələl gətirən bütün mənfiliklərin aradan qaldırılması uğrunda aparılan mübarizə də ümummilli liderimizin hələ sovet dövründən başladığı mübarizənin davamı sayılmalıdır. Çünki Heydər Əliyev üçün rəhbər işçilərin mənəvi saflığı, hər yerdə ədalətin bərqərar olması, vətəndaşların qayğılarına və problemlərinə həssaslıqla yanaşılması həmişə əsas prinsiplərdən biri olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti ölkəmizdə həyatın bütün sahələrini beynəlxalq standartlara uyğunlaşdırmağın zəruriliyini hər bir çıxışında xüsusi qeyd edir və bunun reallaşması üçün lazımi tapşırıq və tövsiyələrini verir. Dövlət başçısı 2011-ci il yanvarın 14-də 2010-cu ilin yekunlarına həsr olunmuş iclasda bir daha qeyd etmişdir: "Harada ki, bizdə görülən işlər hələ beynəlxalq standartlara cavab vermir, onları beynəlxalq standartlara, Avropa standartlarına yaxınlaşdırmalıyıq". Ölkə Prezidenti dünyada gedən prosesləri qiymətləndirərək bildirir ki, indi qüvvələr nisbətini texniki tərəqqi müəyyən edir. Bunun həmişə belə olduğunu, indiki şəraitdə isə bunun özünü daha da qabarıq şəkildə büruzə verdiyini qeyd edərək texniki tərəqqinin, texnoloji irəliləyişin, müasir texnologiyaların, xüsusilə informasiya-kommunikasiya sahəsində, rabitə sahəsində, elektronika, kosmik sənayedə əldə edilmiş uğurların ölkələrin inkişafını və gücünü müəyyən etdiyini göstərir və deyir: "Biz də bu sahədə geri qalmamalıyıq. Baxmayaraq ki, bu sahə Azərbaycanda heç vaxt inkişaf etməmişdir, ancaq biz bunu etməliyik. Bizdə müdafiə sənayesi də heç vaxt olmamışdır. Amma 5 il ərzində elə güclü müdafiə sənayesi yaratmışıq ki, indi özümüzü təmin edirik, ixrac da edirik və sərgilərdə iştirak edirik. Kosmik sənayeyə də eyni səviyyədə yanaşmalıyıq. Qısa müddət ərzində Azərbaycanda çox güclü kosmik sənaye yaradılmalıdır. Bu, bizə hər cəhətdən lazımdır".

Bu sözlərin arxasında dövlətimizin rəhbərinin uzaqgörənliyi və Azərbaycanın gələcəyini daha gözəl və daha parlaq görmək istəyi durur. Ölkə Prezidenti daha bir çıxışında bildirir ki, həyat öz yerində durmur, öz axarı ilə gedir və biz prosesləri qabaqlamalıyıq. Biz uzağa baxmalıyıq, gələcəyə baxmalıyıq. Həm bugünkü problemlərin həlli üçün çalışmalıyıq, həm də öz addımlarımızla, siyasətimizlə, qəbul edilmiş proqramlarla ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin etməliyik.

Bu il Azərbaycan öz müstəqilliyinin 20-ci ildönümünü böyük təntənə ilə qeyd edəcəkdir. Bu dövlətin banisi sayılan Heydər Əliyevin bizə miras qoyub getdiyi müstəqilliyimizin gündən-günə möhkəmlənməsi, ölkəmizin dünya dövlətləri sırasında öz layiqli yerini tutması üçün misilsiz işlər görülmüş və görülməkdədir. Azərbaycanın bu gün əldə etdiyi bütün nailiyyətlərin kökündə Heydər Əliyevin yeni Azərbaycanı qurmaq və yaratmaq ideyaları, onun müstəqilliyini əbədiləşdirmək arzuları dayanır. Ölkə Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın bugünkü uğurları ilk növbədə müstəqilliyimizin nəticəsidir.

**Ulu öndərin bu gün də bizə qürur hissi bəxş edən "Müstəqilliyimiz əbədidir! Müstəqilliyimiz dönməzdir!" sözləri yeni şəraitə, yeni dövrə uyğun olaraq onun yolunu davam etdirən ölkə Prezidentinin müasir idarəçilik və rəhbərlik bacarığı sayəsində daha fəxrlə səslənir. Bu müstəqilliyi qoruyan, onu yaşadan isə ölkə rəhbərliyi ilə xalqımızın sıx birliyidir. Ona görə də Azərbaycanın dövlət başçısının dediyi bu sözlər hər bir vətəndaşın ürəyindəndir: "Müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük dəyərdir. Müstəqillikdən qiymətli heç bir şey ola bilməz".**

**Ən böyük sərvətimizi - müstəqilliyimizi qorumaq üçün isə Azərbaycan daim yeniləşməli, Heydər Əliyevin başladığı müasirləşmə və inkişaf yolunu bundan sonra da əzmlə davam etdirməlidir.**

“**Azərbaycan**”.-2011.-5 aprel.-N 70.-S.3.

# HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT KONSEPSİYASI UĞURLU BƏHRƏLƏRİNİ VERİR

**Novruz MƏMMƏDOV,**
Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının
Xarici əlaqələr şöbəsinin müdiri, YAP Siyasi Şurasının üzvü

**Müasir dövrdə hər bir dövlətin beynəlxalq münasibətlər sistemində layiqli mövqe tutaraq özünü bərabərhüquqlu tərəfdaş kimi təsdiqləməsi, milli maraq və mənafelərini yüksək səviyyədə müdafiə etməsi, qlobal təhdid və çağırışlara adekvat cavab verməsi, diplomatik əməkdaşlıq sferasında həlledici uğurlara imza atması onun çağdaş dünya nizamının reallıqlarına cavab verən xarici siyasət yeritməsindən bilavasitə asılıdır. Tarixi təcrübə təsdiqləyir ki, beynəlxalq hüquq prinsiplərini əsas tutaraq praqmatizmə, qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan açıq xarici siyasət yeridən, qlobal coğrafi-siyasi məkanda cərəyan edən proseslərə çevik və qarşılıqlı reaksiyası ilə seçilən, çoxqütblü əməkdaşlığa üstünlük verən ölkələr tez bir zamanda qarşıya qoyduqları məqsədlərə yetişə bilirlər. Bu sahədə müsbət nəticələri təmin edən vacib amillərdən biri də milli və bəşəri mənafelərin mümkün dərəcədə uzlaşdırılması, habelə dəqiq hədəflərə hesablanmış xarici siyasət prioritetlərinin müəyyənləşdirilməsidir.**

Xarici siyasətin bu vacib meyarlar üzərində gerçəkləşdirilməsi isə təkcə dövlətlərin iqtisadi qüdrəti, zəngin təbii ehtiyatları, coğrafi-siyasi yerləşməsi ilə şərtlənmir. Diplomatik fəaliyyətin effektivliyi həm də ayrı-ayrı ölkələrin daxili və xarici siyasətinin liberal xarakteri - hamılıqla qəbul olunmuş dəyərlərə tolerant münasibəti, beynəlxalq sülh və təhlükəsizliyə layiqli töhfə verməsi, iqtisadi əməkdaşlıq təşəbbüslərini fəal surətdə dəstəkləməsi ilə üzvi surətdə bağlıdır. Ümumbəşəri sivilizasiyanın hazırkı yüksək inkişaf mərhələsində demokratikləşmə xəttini müdafiə etməyən, yaxud insan və vətəndaş hüquq və azadlıqlarına hörmət bəsləməyən hər hansı bir dövlətin hansısa nüfuz qazanmasından, geniş coğrafi arealda cərəyan edən proseslərə təsiretmə imkanlarından danışmaq mümkün deyildir. İnsanların qərinələr boyu təcrübədən uğurla çıxardığı demokratik-liberal dəyərlər hazırda dünya ölkələrinin əksəriyyətində milli inkişaf strategiyası kimi müəyyənləşdirilmiş, dövlət idarəçiliyinin, birgə yaşayışın, vətəndaş-hakimiyyət münasibətlərinin tənzimlənməsinin ən ahəngdar, sivil forması kimi dəyərləndirilmişdir.

## Balanslı, çevik və çoxşaxəli diplomatiya

Ötən əsrin sonlarına yaxın milli dövlətçiliyini bərpa etmiş Azərbaycan Respublikasının məhz bu fundamental prinsiplər əsasında xarici siyasət yeritməsi - balanslı diplomatiya ilə dünyanın fövqəlgüc mərkəzlərinin regionda toqquşan maraqlarını optimal şəkildə uzlaşdırması, ayrı-ayrı dövlətlərlə münasibətlərdə bərabərhüquqlu tərəfdaşa çevrilməsi, beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri qurması, ən başlıcası, milli mənafeyini lazımi səviyyədə müdafiə etməsi məhz ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın istəyi, təkidli tələbi ilə hakimiyyətə gəlişindən sonra mümkün olmuşdur. Dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə malik ümummilli lider ölkəyə rəhbərliyinin ilk günlərindən qətiyyətli addımlar ataraq xarici siyasətdə yol verilmiş kobud səhvlərin aradan qaldırılmasına başlamışdır. Azərbaycan siyasətinin patriarxı ilk növbədə qonşu dövlətlərlə münasibətləri sahmana salmağa çalışmış, balanslaşdırılmış xarici siyasət yeritməklə respublikamızın geosiyasi rəqabət meydanına çevrilməsinə yol verməmişdir. Azərbaycana qarşı "ikili standart" yanaşmaları tədricən aradan qaldırmağa nail olan Heydər Əliyev böyük strateq kimi aparıcı dünya dövlətlərini respublikamızın tarazlı və müstəqil siyasət yeridəcəyinə inandıra bilmişdir. "Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir" - deyən ümummilli lider həmçinin əlavə etmişdir ki, müxtəlif dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq qurulması, Avratlantik məkana inteqrasiya, sivil Qərb dəyərlərinin mənimsənilməsi Azərbaycanın xarici siyasət prioritetləri sırasında mühüm yer tutur. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə müstəqil respublikamızın qəbul edilmiş ilk milli Konstitusiyasında xarici siyasətin konseptual xarakterinin, məqsəd və vəzifələrinin səhih şəkildə əksini tapması da məhz ulu öndər Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində mümkün olmuşdur. Dövlətin idarəetmə sisteminin əsasını təşkil edən Konstitusiyanın 10-cu maddəsinə görə, Azərbaycan başqa dövlətlərlə və

beynəlxalq aləmlə münasibətlərini beynəlxalq hüquq normaları və ölkənin maraqlarını nəzərdə tutan prinsiplər əsasında qurur.

Azərbaycanın müstəqillik illəri ərzində yeritdiyi xarici siyasət ümumən bu prinsiplərə əsaslanmış, respublikanın dövlət müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün bərpası, beynəlxalq münasibətlər sistemində layiqli mövqeyinin təmin olunması, ikitərəfli əlaqələrdə bərabərhüquqlu tərəfdaş kimi çıxış etməsi milli diplomatiyanın əsas məqsədlərinə çevrilmişdir.

Demokratikləşmə, insan hüquq və azadlıqlarının etibarlı təminat mexanizmlərinin formalaşdırılması, liberal dəyərlərin mənimsənilməsi Azərbaycanın xarici siyasət doktrinasının mühüm vektorlarından biri olsa da, rəsmi Bakı müəyyən dairələrin bu bəşəri dəyərlərdən geosiyasi təzyiq aləti kimi istifadə etməsi cəhdlərinə qarşı çıxır, "demokratiyanın müdafiəsi bayrağı" altında "ikili standart" yanaşmaları, yeni müstəqillik qazanmış dövlətlərin suveren hüquqlarına müdaxiləni yolverilməz hesab edir. Silah gücünə və ya müxtəlif rəngli inqilablarla demokratiya toxumu əkmək prinsipi, bütövlükdə, demokratiya ideallarını şübhə altına alır, xalqlarda demokratiyaya inamsızlıq yaradır, ümumbəşəri dəyərləri vasitəyə çevirərək müəyyən məqsədlərə nail olmaq istəyənlərin səmimiliyini sual altında qoyur.

Akademik Ramiz Mehdiyev "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti" əsərində haqlı olaraq yazır ki, inkişaf etmiş və demokratik inkişaf yolunda böyük təcrübə qazanmış Qərb ölkələrinin standartları ilə totalitar rejimlərdən yenicə xilas olmuş, keçid mərhələsini yaşayan ölkələrdə gedən demokratik prosesləri eyniləşdirmək cəhdi istənilən halda uğursuzluğa məhkumdur. Müasir dünyada demokratikləşmə prosesinin müəyyən standart tələbləri və meyarları olsa da, hər bir ölkənin özünə məxsus milli mentaliteti, tarixi, sosial-iqtisadi, siyasi və mədəni inkişaf xüsusiyyətləri, qeyri-bərabər başlanğıc imkanları nəzərə alınır. Akademikin bu fikri ilə tam razılaşmaq lazımdır ki, Azərbaycanda demokratiya və vətəndaş cəmiyyətini Qərb modelini olduğu kimi tətbiq edərək formalaşdırmaq heç də həmişə uğurlu variant hesab edilməməlidir: "Demokratik ənənələrin tarixən yabançı olduğu cəmiyyətlərdə milli-tarixi, mədəni və sosial-siyasi özünəməxsusluq amilləri və ictimai şüurun dəyişməsi nəzərə alınmadan birdən-birə yeni davranış normaları formalaşanda artıq bu amillər təəccüb doğurmur. Hətta tərəqqi innovasiya xarakteri kəsb etdiyi, yəni, ideyalar, texnologiyalar, biliklər bir nəslin digərini əvəz etməsindən daha tez dəyişdiyi bir şəraitdə belə, bu cür kəskin siyasi hərəkətlər ictimai şüurun ağırlıq mərkəzinin radikal inkarlar müstəvisinə doğru dəyişməsinə səbəb olur. Nəticədə XXI əsrdə demokratiya ən qısa müddətdə nəinki rejimin dəyişməsinə, hətta gərginliyin daha geniş miqyas almasına şərait yarada biləcək təhlükəli geosiyasi silaha çevrilir. Biz İraqda, Əfqanıstanda, Kosovoda və başqa bölgələrdə belə halların baş verməsinin şahidiyik. Bu gün isə həmin proseslər özünü digər ölkələrdə də göstərir".

Azərbaycanın xarici siyasət kursunun formalaşması prosesi respublikada müstəqil dövlət quruculuğu prosesi ilə paralel getdiyindən rəsmi Bakı xarici siyasətini təməl prinsiplər əsasında müəyyənləşdirərək qarşıya qoyduğu məqsədlərə doğru inamla irəliləmiş, bərabərhüquqlu və qarşılıqlı hörmətə əsaslanan əlaqələrə üstünlük vermiş, "ikili standartlara" qarşı çıxmış, milli mənafelərini yetərincə qoruya bilmişdir.

Bəzən Azərbaycanın bölgədə artan rolunun yanlış olaraq respublikanın karbohidrogen ehtiyatları ilə əlaqələndirilməsi cəhdlərinə də rast gəlinir. Bu reallıq sanki unudulur ki, Qərb dövlətləri iqtisadi dirçəliş və demokratiya yolunda olmayan heç bir ölkə ilə davamlı, uzunmüddətli, qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri qurmamışdır. Bəzi dövlətlərin timsalında bunu əminliklə demək olar. Azərbaycanla Avropa dövlətləri arasında qarşılıqlı faydalı əməkdaşlıq da məhz xalqımızın sivil Qərb dəyərlərinə tolerant münasibəti, habelə respublikamızda demokratik proseslərin dönməzliyinə olan inamı ilə təmin edilir. Siyasi sistemin xarakteri, cəmiyyətin liberal dəyərlərə adaptasiyası prosesi respublikamızın, eyni zamanda, beynəlxalq sülh və əməkdaşlıq mərkəzinə çevrilməsini şərtləndirir.

Azərbaycan Prezidenti İlham Əliyevin indi bütövlükdə dünya siyasətində bütün siyasi qütblərin hesablaşdığı və rəğbət bəslədiyi fenomen siyasi liderə çevrilməsi də məhz bu reallıqların nəticəsidir.

**Diplomatik korpus qarşısında yeni vəzifələr**

Xarici siyasətdə varislik ənənələrinin qorunması, diplomatiyanın əsas istinad mənbəyi olan təməl prinsiplərinin dəyişməz qalması Azərbaycanın hazırkı çoxşaxəli uğurlarını təmin edən amillər sırasında xüsusi vurğulana bilər. Ümummilli lider Heydər Əliyev müstəqil respublikamızın milli mənafelərə cavab verən xarici siyasət doktrinasının müəllifi olmaqla yanaşı, bu siyasəti keyfiyyətcə yeni mərhələdə inamla, qətiyyətlə davam etdirəcək rasional və praqmatik düşüncəli lideri də yetişdirmişdir. 2003-cü ilin oktyabrından respublikaya inamla rəhbərlik edən İlham Əliyev ulu öndərin böyük uzaqgörənliklə irəli sürdüyü xarici siyasət kursunu yeni

dövrün tələblərinə uyğun davam etdirmiş, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da yüksəlməsinə, müstəqil siyasət yeritməklə milli maraqlarını maksimum səviyyədə qorumasına nail olmuşdur.

Ermənistanın dünya miqyasında təcavüzkar dövlət kimi tanınmasına nail olmaq və Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, dünya siyasətini istiqamətləndirən iri dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək, beynəlxalq ictimaiyyətdə respublikamızda həyata keçirilən mütərəqqi ruhlu iqtisadi və demokratik islahatlar barədə dolğun təsəvvür yaratmaq, xaricdə güclü diaspor və lobbi formalaşdırmaq dövlət başçısı İlham Əliyevin xarici siyasətinin prioritet məqsədləri sırasında xüsusi vurğulanmalıdır. Balanslı xarici siyasət yürüdən Azərbaycan son illərdə regionun və dünyanın bir sıra dövlətləri ilə diplomatik əlaqələri inkişaf etdirmək siyasətinə üstünlük vermiş, sivil oyun qaydalarına əsaslanan enerji diplomatiyası həyata keçirmişdir.

Azərbaycan Prezidenti bu və digər məqsədləri ən qısa zamanda reallaşdırmaq, xarici siyasətin ardıcıllığını və çevikliyini təmin etmək üçün ilk növbədə diplomatik korpusun fəaliyyətinin yeni dövrün tələblərinə uyğunlaşdırılmasını təmin etməyə çalışmışdır. Dövlət başçısının 2004, 2006 və 2008-ci illərdə Xarici İşlər Nazirliyində Azərbaycanın diplomatik xidmət orqanları rəhbərlərinin iştirakı ilə keçirdiyi geniş müşavirələr də məhz xarici siyasət sahəsində vəzifələrin bir daha nəzərdən keçirilməsi, diplomatik fəaliyyətin dünyanın müasir reallıqları və tələblərinə uyğun qurulması məqsədindən irəli gəlmişdir. Müasir beynəlxalq münasibətlər sisteminin incəliklərinə dərindən bələd olan Prezident İlham Əliyev hər üç müşavirədə dərin məzmunlu nitq söyləyərək keyfiyyətcə yeni mərhələdə Azərbaycanın diplomatik nümayəndəlikləri qarşısında duran vəzifələri bir daha diqqətə çatdırmış, erməni lobbisinin cəfəng təbliğatının zərərsizləşdirilməsi baxımından hücum xətti üzərində qurulan çevik diplomatiyanın həyata keçirilməsini vacib saymışdır.

**Qlobal təhdidlərə preventiv reaksiya**

Uzun illər regionda siyasi arbitr rolunda çıxış etməyə iddialı olan bəzi dövlətlərin respublikamıza bərabərhüquqlu tərəfdaş kimi yanaşmaq məcburiyyətində qalması, rəsmi Bakı ilə təzyiq və təhdid dilində danışmağın mənasızlığını dərk etməsi bu gün Azərbaycan diplomatiyasının ən mühüm uğurlarından biri kimi vurğulana bilər. İrili-xırdalı bütün dövlətlərin respublikamızla hesablaşması, onun mənafeyini nəzərə alması, ilk növbədə, qətiyyətli, inamlı, praqmatik, dünya siyasi arxitekturasının reallıqlarına cavab verən xarici siyasətin nəticəsidir. Ölkə iqtidarının xalqın dəstəyinə arxalanması, hər bir məsələdə milli maraqları önə çəkməsi sayəsində Azərbaycanın xarici siyasəti dövlətin maraq və təhlükəsizliyinə qarşı yönələn istənilən təhdidə çevik müqaviməti təmin edir.

Son illərin bir sıra hadisələri deməyə əsas verir ki, Prezident İlham Əliyev istər ABŞ və Avropa, istərsə də Rusiya və İranla münasibətlərdə Azərbaycanın mənafeyinə xələl gətirə biləcək bütün məqamları ardıcıl, obyektiv və məntiqli şəkildə aradan qaldırmağa nail olmuşdur. ABŞ-dakı ermənipərəst qüvvələrin təsiri ilə rəsmi Vaşinqtonun müəyyən müddət narazılıqla qarşıladığı Bakı-Tbilisi-Qars dəmir yolu xəttini Azərbaycanın daxili imkanlar hesabına maliyyələşdirməsi, habelə ABŞ Dövlət Departamentinin 2007-ci ildə Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu şübhə altına alan hesabatına sərt reaksiya verməsi və həmin texniki yanlışlığı qısa zamanda aradan qaldırmağa nail olması bu sırada diqqət çəkən məsələlərdir.

Dövlət başçısı İlham Əliyev şimal qonşumuzun 2005-2006-cı illərdə Azərbaycanı müəyyən enerji təhdidlərinə, şantajlarına məruz qoymaq, təbii qazın qiymətlərini ikitərəfli münasibətlərin xarakterinə adekvat olmayan şəkildə diktə etmək cəhdlərinə də eyni prinsipiallıqla cavab vermiş, qonşu dövlətdən təbii qazın idxalının dayandırılması barədə operativ qərar qəbul etmişdir.

Sonrakı mərhələdə respublikamız daxili imkanları hesabına nəinki özünü, eyni zamanda, çıxılmaz vəziyyətə düşmüş Gürcüstanı da qazla təmin etmişdir. Enerji amilindən hansısa üçüncü ölkəyə qarşı siyasi təzyiq vasitəsi kimi istifadə olunması cəhdlərini yolverilməz sayan Azərbaycan regionun iri neft və qaz hasilatçısı olaraq iqtisadi və siyasi öhdəliklərə şərtsiz əməl olunmasını qarşılıqlı faydalı əməkdaşlıqda vacib amillərdən biri kimi dəyərləndirir.

Azərbaycan milli maraqları ilə bağlı məsələlərdə hər hansı dövlətə güzəştə getmək niyyətindən uzaqdır.

**Beynəlxalq təşkilatlarda layiqli təmsilçilik**

Azərbaycanın xarici siyasətində beynəlxalq əməkdaşlıq mühüm istiqamətlərdən biri kimi nəzərdən keçirilir, ölkənin milli maraqları baxımından bu sahəyə xüsusi diqqət yetirilir. Ölkəmiz bəşəri sülh və təhlükəsizliyin təminatında universal beynəlxalq təşkilat kimi BMT-nin mərkəzi rolunun daha da artırılması istiqamətində göstərilən beynəlxalq səylərə töhfəsini davam etdirir, təşkilatın müxtəlif qurumları və ixtisaslaşdırılmış təsisatlarında təmsilçiliyini artırır. Azərbaycan müasir dövrün hədə və təhdidlərinə daha səmərəli şəkildə cavab

vermək üçün beynəlxalq hüquq sisteminin möhkəmləndirilməsi və qəbul edilmiş qərarların həyata keçirilməsi də daxil olmaqla, BMT-nin operativ imkanlarının artırılmasına yönələn islahatları dəstəkləyir.

ATƏT ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətində mühüm yer tutur. ATƏT-in Helsinki Yekun Aktı və digər sənədlər bu təşkilata üzv olan ölkələr arasında münasibətləri tənzimləyən norma və prinsipləri müəyyən edir və kollektiv təhlükəsizliyin saxlanılması üçün əsas yaradır. Azərbaycanın ATƏT-lə əməkdaşlığı təkcə demokratik inkişaf baxımından deyil, həm də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli baxımından vacibdir.

Eyni zamanda, milli maraqlarımızın təmin olunması, daxili siyasi və institusional islahatların səmərəli şəkildə həyata keçirilməsi, həmçinin Azərbaycan qanunvericiliyinin Avropanın norma və standartlarına uyğunlaşdırılması nöqteyi-nəzərdən Avropa Şurası ilə əməkdaşlığa xüsusi diqqət yetirilir. Azərbaycan Avropa Şurasına üzv qəbul olunarkən bu nüfuzlu beynəlxalq qurum qarşısında götürdüyü öhdəliklərin böyük əksəriyyətini artıq yerinə yetirmişdir. Qalan bəzi öhdəliklərin reallaşdırılması istiqamətində fəal iş aparılır.

Ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığı "Yeni qonşuluq siyasəti" və "Şərq tərəfdaşlığı" proqramları çərçivəsində inkişaf etdirilir. Azərbaycan Avropa İttifaqı ilə siyasi dialoqu gücləndirir, siyasi, iqtisadi və institusional islahatlar sahələrində əməkdaşlığı inkişaf etdirir, əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə qaldırılması üçün əsaslar yaradır.

Avratlantik məkana inteqrasiya baxımından NATO ilə əməkdaşlıq da respublikamız üçün müstəsna əhəmiyyət kəsb edir. Azərbaycan 1994-cü ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulan ilk ölkələrdən biri olmuşdur və Avratlantik Tərəfdaşlıq Şurası və digər vasitələrlə NATO ilə mümkün tərəfdaşlıq mexanizmlərindən tam şəkildə bəhrələnir. Azərbaycan Fərdi Tərəfdaşlığın Fəaliyyəti Planının ikinci fazasını uğurla başa vurmuşdur. Azərbaycan sülhməramlıları NATO hərbçiləri ilə birlikdə Kosovoda, İraqda və Əfqanıstanda sabitliyin qorunmasında, sülhyaratma əməliyyatlarında xidmət göstərmişlər.

Azərbaycan regional çoxtərəfli əməkdaşlığı vacib hesab edir və GUAM çərçivəsində regionda daha mehriban və daha sabit münasibətlərə nail olunmasına öz töhfəsini verir. Gürcüstan, Ukrayna və Moldova ilə GUAM - Demokratiya və İqtisadi İnkişaf uğrunda Təşkilat çərçivəsində sıx əməkdaşlıq edir. Təşkilatın üzvləri qarşılıqlı əlaqələri genişləndirməklə bərabər, bir sıra mühüm məsələlərə münasibətdə vahid mövqedən çıxış edirlər. GUAM-ın iştirakçısı olan üç ölkənin - Azərbaycan, Gürcüstan və Moldovanın ərazi bütövlüyü və suverenliyinin pozulması onların istər regional, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyətini şərtləndirir. Bu əməkdaşlıq, eyni zamanda, Avropanın enerji təhlükəsizliyinin təmini baxımından vacib əhəmiyyət daşıyır.

Dini, tarixi, siyasi və mənəvi dəyərləri ilə bir-birinə bağlı olan müsəlman ölkələrinin uğurlu birlik modeli kimi özünü təsdiqləyən, beynəlxalq münasibətlər sistemində xüsusi çəkiyə malik olan İslam Konfransı Təşkilatı ilə əməkdaşlıq da Azərbaycanın xarici siyasətində mühüm yer tutur. Respublikamız təşkilatla qarşılıqlı faydalı münasibətlər qurmaqla ümummilli maraqlarını daha geniş coğrafi arealda müdafiə etmək, üzləşdiyi bir sıra problemləri beynəlxalq birliyə çatdırmaq baxımından əlverişli tribuna qazanmışdır.

Dinlər və sivilizasiyalararası dialoqun təşviq edilməsində ənənəvi olaraq yüksək nüfuza malik Azərbaycan Respublikası Türkiyənin və İspaniyanın təşəbbüsü ilə baş tutan Sivilizasiyalararası Alyansa qoşulan ilk ölkələrdəndir. Ölkəmiz, həmçinin 32 dövlətin dini liderlərinin və dini nümayəndələrinin iştirakı ilə Bakıda Dini Liderlərin Ümumdünya Sammitini keçirmişdir.

**Danışıqlar milli maraqlarımız çərçivəsində gedir**

20 ildən artıq davam edən, beynəlxalq və regional sülhə, təhlükəsizliyə ciddi təhlükə olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ən uzun sürən, qanlı və çətin həll edilə bilən problemə çevrilmişdir. Ermənistan tərəfindən həyata keçirilən təcavüzün nəticəsi olaraq Azərbaycan ərazilərinin beşdə biri zəbt olunmuş, etnik təmizləməyə məruz qalmış bir milyonadək azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmiş, ölkənin minlərlə tarixi-mədəni irsi dağıdılaraq qarət edilmişdir. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamədə başqa bir dövlətin ərazisinin güc tətbiq etmək yolu ilə ələ keçirilməsinin yolverilməzliyi və Azərbaycanın ərazi bütövlüyü, suverenliyi vurğulanmış, Dağlıq Qarabağ Azərbaycanın bir hissəsi kimi tanınmış, zəbt olunmuş Azərbaycan torpaqlarından işğalçı qüvvələrin qeyd-şərtsiz çıxması çağırışı əksini tapmışdır. BMT Baş Məclisinin 2008-ci il 14 mart tarixli "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnaməsində ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə dəstək bir daha ifadə olunmuşdur.

Münaqişənin həllinə dair ATƏT, İKT, Avropa Şurası Parlament Assambleyası, NATO, Avropa İttifaqı, Avropa Parlamenti və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələrində Azərbaycan ərazilərinin ermənilər tərəfindən işğal olunduğu və separatçı qüvvələrin Dağlıq Qarabağ bölgəsinə nəzarət etdiyi

göstərilmişdir. Bununla yanaşı, BMT Təhlükəsizlik Şurasının qətnamələrində əks olunmuş tələblərin yerinə yetirilməsinin və erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmasının vacibliyi xüsusi vurğulanmış, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə dəstək ifadə edilmişdir.

Xatırlatmaq yerinə düşərdi ki, hələ 2008-ci ilin payızında Moskvada keçirilən görüş çərçivəsində Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin son 15 ildə ilk dəfə birgə bəyannamə imzalaması danışıqlar prosesini intensivləşdirmək, problemi qarşılıqlı güzəştlər əsasında həll etməklə bağlı siyasi iradə nümayişi kimi yadda qalmışdır. Bəyannamədə Azərbaycanın dəfələrlə qeyd etdiyi məqamlardan kənara çıxan heç bir maddə yoxdur. Beynəlxalq ekspertlərin rəylərində də bildirilir ki, Moskva bəyannaməsi Azərbaycan Prezidenti İlham Əliyevin münaqişənin nizamlanması istiqamətində dəfələrlə səsləndirdiyi fikirlərin bir növ müdafiəsi idi və əsasən bu fikirləri özündə təcəssüm edirdi. Ermənistan Prezidentinin bu bəyannaməni imzalaması Azərbaycan diplomatiyasının uğuru sayılmalıdır.

Ötən il gerçəkləşən Soçi, Sankt-Peterburq və Həştərxan görüşlərinin Madrid prinsipləri əsasında aparılması deməyə əsas verir ki, danışıqlar prosesi məhz münaqişənin ərazi bütövlüyü prinsipi əsasında həlli formulu çərçivəsində aparılır.

Qeyd etmək lazımdır ki, münaqişənin nizama salınmasının başlıca prinsiplərinin razılaşdırılması istiqamətində atılmış ən mühüm addımlardan biri ATƏT-in Minsk qrupunun həmsədr dövlətləri başçılarının keçən il iyunun 26-da Kanadanın Muskoka şəhərində verdikləri birgə bəyanat olmuşdur. Bəyanatda dövlət başçıları tərəfindən münaqişənin işğal altındakı ərazilərin azad edilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qaytarılması və digər prinsipləri nəzərdə tutan mərhələli həllinin zəruriliyi vurğulanmışdır.

Ötən il dekabrın 1-2-də Qazaxıstanın paytaxtında keçirilmiş ATƏT-in 7-ci sammiti çərçivəsində təşkilatın Minsk qrupunun həmsədr ölkələrinin nümayəndə heyətlərinin başçıları, Azərbaycan və Ermənistan prezidentləri tərəfindən qəbul olunmuş birgə bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin dövlət başçılarının 2009-cu ildə İtaliya və 2010-cu ildə Kanadada keçirilmiş "Böyük səkkizliyin" zirvə görüşləri çərçivəsində qəbul edilmiş prinsiplər əsasında həllinin vacibliyi bir daha vurğulanmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev münaqişə ilə bağlı danışıqlar prosesinin məhz Azərbaycanın qəti şəkildə önə çəkdiyi prinsiplər əsasında getdiyini razılıqla vurğulayır: "Xarici siyasətdə bütövlükdə bizim qarşımızda yeganə böyük problem dayanıbdır. O da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Azərbaycan dövləti bu istiqamətdə bütün səyləri göstərir ki, məsələ tezliklə ədalətli və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunsun. Bizim səylərimiz, deyə bilərəm ki, danışıqlar prosesində artıq ilk nəticələrini verməkdədir. Bütün dövrlərdə bizim mövqeyimiz ondan ibarət olmuşdur ki, bu məsələ yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilə bilər. Dağlıq Qarabağda insanlar yüksək muxtariyyət statusu çərçivəsində, vahid Azərbaycan dövləti çərçivəsində yaşaya bilərlər. Bu gün bu prinsiplər əsas götürülübdür. Yəni, danışıqlar bu prinsiplər əsasında aparılır və istənilən razılaşma ancaq bu prinsiplər əsasında ola bilər. Biz bütün dövrlərdə demişik və bu gün də deyirik ki, məsələ ancaq mərhələli yolla həll oluna bilər. Bu gün danışıqlar mövzusu olan təkliflər məhz mərhələli həlli təmin edir".

Azərbaycan Cənubi Qafqaz regionunda və ondan kənarda təhlükəsizlik və sabitlik naminə Ermənistan rəhbərliyi ilə danışıqları davam etdirməyə hazırdır və bu da gələcəkdə geniş regional imkanları bütün tərəflərin faydası üçün istifadə etməyə şərait yaradacaqdır. Lakin sülh prosesinin uğurla nəticələnməsi Ermənistan tərəfinin eynilə bu prosesə sadiqliyindən və konstruktiv yanaşmasından, həmçinin beynəlxalq birliyin, ATƏT-in bütün üzv dövlətlərinin, xüsusən də, Minsk qrupunda təmsil olunan və həmsədrlik edən ölkələrin fəal töhfəsindən asılıdır.

Prezident İlham Əliyev Rusiyanın "Vesti" telekanalına və İTAR-TASS informasiya agentliyinə verdiyi müsahibədə demişdir ki, indiki halda biz Minsk qrupu həmsədrlərinin təklifini dəstəkləyirik. Həm bizim təklifimizdə, həm də Minsk qrupu həmsədrlərinin təklifində ərazi bütövlüyünün bərpası, təhlükəsizliyə zəmanətin təmin edilməsi, bütün qaçqınların və daxili köçkünlərin Dağlıq Qarabağın ətrafındakı tarixi torpaqlarına və Dağlıq Qarabağa qaytarılması və gələcəkdə Dağlıq Qarabağın statusu barəsində hər iki tərəfi qane edən qərar qəbul olunması məsələləri əlaqələndirilir. "Dağlıq Qarabağın statusu haqqında birtərəfli qərar qəbul edilə bilməz" fikrini önə çəkən Prezident İlham Əliyev bəyan etmişdir ki, Dağlıq Qarabağın Azərbaycandan hüquqi cəhətdən ayrılması mexanizmini nəzərdə tutan proseslərdə Azərbaycan özünün iştirakını mümkün saymır və heç vaxt bu proseslərdə iştirak etməyəcəkdir. Bu, bizim birmənalı mövqeyimizdir.

**Bütün bunlar göstərir ki, Azərbaycanın ictimai-siyasi cəhətdən sabit, iqtisadi baxımdan sürətlə inkişaf edən, eyni zamanda, beynəlxalq miqyasda maraq və mənafeyini layiqincə təmin edən ölkəyə çevrilməsində dövlət başçısı İlham Əliyevin yeritdiyi uğurlu xarici siyasət kursu vacib əhəmiyyətə**

**malikdir. Bu kursun əsas məqsədi isə milli maraqların prioritetliyi şərti ilə respublikamızın beynəlxalq miqyasda özünü təsdiqləməsi, iqtisadi-siyasi potensialını effektiv surətdə reallaşdırması və təhlükəsizliyinin hərtərəfli təminatından ibarətdir.**

"**Azərbaycan**".-2011.-14 aprel.-N 78.-S.4.

# MİLLİ İQTİSADİ İNKİŞAF STRATEGİYASININ BANİSİ

**Mahmud KƏRİMOV,**
Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti

**Beynəlxalq təcrübədən məlumdur ki, əgər dövlətin, xalqın strateji mənafeyi baxımından onun daxili və xarici siyasətinin ümumiləşmiş konsepsiyasını müəyyən edən, dövlətin inkişaf xəttini xalqa bəyan edən və xalqı öz arxasınca aparmağı bacaran şəxsiyyət, başqa sözlə, dövlətçiliyi qorumağı, onun müdafiəsini təşkil etməyi əməli surətdə həyata keçirən praktik siyasətçi-diplomat və komandan yoxdursa, həmin ölkənin nikbin gələcəyindən danışmaq çətindir.**

Yüksək nüfuz, təşkilatçılıq bacarığı, müdriklik, intellektuallıq, milli-mənəvi dəyərlərin daim uca tutulması, novatorluq, hadisələrə pozitiv təsir, qətiyyətlilik və bu qəbildən olan digər keyfiyyətlər həm də liderin xalqının inkişafında oynadığı rolu müəyyən edən əsas cəhətlər kimi çıxış edir. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı, xalqının səsinə səs verməsi Azərbaycan dövlətinin xoşbəxt gələcəyinin başlanğıcı idi. Uğurlu fəaliyyətləri ilə tarix yaradan belə liderlər hər zaman beynəlxalq siyasətdə də heyranlıq duyulan şəxsiyyətlər sırasında yer alır, daim böyük hörmət və ehtiramla anılır. Bu mənada Azərbaycan xalqı da özünü xoşbəxt saya bilər ki, kifayət qədər mürəkkəb və ziddiyyətlərlə dolu dövr kimi xarakterizə edilən XX əsrdə 30 ilə yaxın müddətdə, xüsusilə əsrin sonlarında Heydər Əliyev kimi dahi lider ölkəmizə rəhbərlik etmiş, məhz bu insanın yorulmaz fəaliyyəti, gərgin zəhməti sayəsində Azərbaycanda bütün sahələrdə baş verən tənəzzül tərəqqi ilə əvəzlənmiş, milli iqtisadiyyatın sürətli və davamlı inkişafı təmin olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin xalqın iradəsi və təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışı Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoydu. Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını labüd fəlakətdən, hərcmərclikdən xilas edən dahi rəhbər iqtisadi yüksəliş üçün də təcili tədbirlər görməyə başladı. Aydındır ki, ilk növbədə ittifaq səviyyəsində mövcud olan iqtisadi əlaqələr dağıldıqdan sonra milli iqtisadiyyatın dirçəldilməsi məqsədilə ölkənin malik olduğu təbii resurslardan istifadə edilməsi və milli məhsulların xarici bazarlara çıxışının təmin edilməsi mühüm əhəmiyyət kəsb edirdi.

Sirr deyil ki, hazırkı uğurlu siyasətin təməlində 1990-cı illərin ortalarından başlayaraq bu gün də uğurla davam etdirilən və bünövrəsi ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan yeni neft strategiyası dayanır. 20 sentyabr 1994-cü ildə Bakı şəhərində Xəzər dənizinin Azərbaycana aid sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə istismarı ilə bağlı neft hasilatı üzrə ixtisaslaşmış, dünya dövlətlərini təmsil edən yüksək nüfuza malik 12 iri neft şirkəti arasında beynəlxalq müqavilə imzalandı ki, bununla da "Yeni neft strategiyası" uğurla həyata keçirilməyə başlandı. Məhz o çətin, ağır günlərdə "Əsrin müqaviləsi"nin bağlanması ilə Azərbaycan Respublikası dünya birliyinə, iqtisadiyyatına uğurla inteqrasiya etməyə başladı və siyasi dividendlərlə yanaşı, çox böyük iqtisadi imkanlar da əldə etdi. Bu yolda ölkəmiz ciddi çətinliklərlə rastlaşsa da, böyük sınaqlardan keçməli olsa da, bu gün qürur hissi ilə deyə bilərik ki, nəzərdə tutulmuş bütün proqram və layihələr reallaşdı. Artıq Azərbaycan nefti və qazı dünya bazarlarına çıxarılır, ölkəmiz öz enerji təhlükəsizliyini təmin etmək məqsədilə lazım olan bütün tədbirləri uğurla həyata keçirir. Hazırda Azərbaycan Respublikasının təbii ehtiyatları dörd neft-qaz kəməri vasitəsilə dünya bazarlarına çıxarılır ki, bunun da nəticəsində ölkəmizin valyuta ehtiyatları, iqtisadi uğurları, eləcə də maddi imkanları artır. Bununla yanaşı, ölkə iqtisadiyyatında aparılan liberal islahatlar, liberallaşma siyasəti, dövlətin özəl sektora maddi və mənəvi dəstəyi, iri regional layihələrin reallaşdırılması və sairə, təbii ki, milli iqtisadiyyatımızı daha da gücləndirir. Bütün bunlar isə ölkə iqtisadiyyatında dinamik və davamlı inkişafa nail olunması üçün ciddi təməldir.

İqtisadi sahədə böyük müvəffəqiyyətlər əldə edən respublikamız artıq beynəlxalq aləmdə öz layiqli yerini tutaraq, haqlı mövqeyinin dünya birliyi tərəfindən də qəbul edilməsinə nail olmaqdadır. BMT Baş Assambleyasının Azərbaycanın ərazi bütövlüyü barədə qəbul etdiyi qətnamələr, NATO ölkələrinin Buxarest görüşündə ilk dəfə olaraq yekun sənəddə ölkəmizin ərazi bütövlüyü barədə müddəaların olması

və s. tarazlaşdırılmış daxili və xarici siyasətin nəticəsidir. Təbii ki, düşünülmüş, uzaqgörən siyasət olmadan iqtisadi sahədə, eləcə də əksinə, güclü iqtisadi dayaqlar olmadan siyasi sahədə ciddi müvəffəqiyyətlər əldə etmək qeyri-mümkündür. Bu yerdə ümummilli lider Heydər Əliyevin, hər zaman aktual olan, "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" sözləri yada düşür.

Artıq Azərbaycan müstəqil siyasət aparmaq, xalqımız və dövlətimiz üçün səmərəli layihələrdə sərbəst iştirak etmək, lazım olduqda bu layihələri maliyyələşdirmək, hətta xarici ölkələrdə həyata keçirilən layihələrin maliyyələşdiricisi kimi çıxış etmək imkanı qazanmışdır. Bütün bunlara isə, təbii ki, sarsılmaz siyasi iradə, xalqın dəstəyi, iqtisadi imkanlar, enerji təhlükəsizliyi, aparılan sosial-iqtisadi islahatlar və s. nəticəsində nail

olunmuşdur. "Əsrin müqaviləsi" layihəsi üzrə ilkin neft 12 noyabr 1997-ci ildə hasil edilməyə başlandı. Təqribən 730 milyon ton neft və 200 milyard kubmetrə yaxın təbii qaz ehtiyatına malik olan yataqlarda görüləcək işlərə 12-14 milyard ABŞ dollarına yaxın investisiya qoyuluşu nəzərdə tutulurdu ki, bu da müstəqilliyini yenicə əldə etmiş Azərbaycan Respublikası üçün çox vacib məsələ idi. "Əsrin müqaviləsi" üzrə hasil edilən Azərbaycan neftinin dünya bazarlarına ixracı üçün ilkin dövrlərdə buraxıcılıq qabiliyyətləri ildə 5 milyon ton olan Bakı-Novorossiysk və Bakı-Supsa neft boru kəmərlərindən istifadə olunurdu. Lakin müqaviləyə daxil olan yataqlar üzrə illik hasilatın 50 milyon tona çatdırılacağı nəzərə alınaraq ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə daha böyük nəqletmə imkanlarına malik ixrac marşrutları araşdırıldı və optimal variant kimi Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft boru kəməri seçildi. Məhz buna görə də layihənin həyata keçirilməsində Heydər Əliyevin əvəzsiz xidmətlərini nəzərə alan layihə iştirakçıları 2004-cü ildə BTC əsas ixrac boru kəmərinə Heydər Əliyevin adının verilməsi barədə qərar qəbul etdilər.

Bütün bu işlərin əsas məqsədi, təbii ki, SSRİ-nin süqutundan sonra iflic vəziyyətə düşmüş Azərbaycan iqtisadiyyatını dirçəltməkdən, dünya iqtisadiyyatına daha geniş inteqrasiya etməklə beynəlxalq aləmdə ölkənin nüfuzunu artırmaqdan və doğma Azərbaycan dövlətini dünyəvi bir dövlətə çevirməkdən ibarət idi. Ümummilli lider Heydər Əliyevin "Əsrin müqaviləsi"nin 5 illik yubileyi ilə əlaqədar keçirilən mərasimdə söylədiyi fikirləri xatırlatmaq yerinə düşərdi: "Biz ölkəmizi iqtisadi cəhətdən inkişaf edən ölkə etmək istəyirik. Biz ölkəmizin vətəndaşlarına firavan həyat yaratmaq istəyirik. Biz müstəqil dövlət kimi daim yaşamaq istəyirik. Bütün bu işlər - təkcə neft sahəsində deyil, Azərbaycanın iqtisadiyyatının, həyatının bütün başqa sahələrində də gördüyümüz işlər məhz bu məqsədi daşıyır".

Hazırda ulu öndər Heydər Əliyevin adını daşıyan BTC Azərbaycan neftinin dünya bazarlarına çıxarılması ilə yanaşı, həm də "İpək yolu"nun və türkdilli ölkələrin əsas magistral kəməri statusunu qazanmışdır. BTC neft kəmərləri sisteminə dünya "arteriya"sı kimi daxil olmuşdur. Onu da qeyd edək ki, min bir əziyyətlə başa gələn bu əsas ixrac neft boru kəmərinin texniki-iqtisadi əhəmiyyətindən başqa, onun siyasi rolu da danılmazdır. Belə ki, həmin neft kəməri dünya dövlətləri ilə Azərbaycan dövlətinin yeni münasibətlərinin yaranmasına, dünya xalqları ilə əlaqələrinin yenidən qurulmasına təkan verərək, Azərbaycan dövlətinin xarici siyasətinin güclənməsinə, beynəlxalq aləmdə nüfuzunun artmasına, eləcə də onun siyasi və iqtisadi baxımdan inkişaf etməsinə səbəb olmuşdur. BTC təkcə Azərbaycan üçün deyil, ümumilikdə beynəlxalq aləmdə enerji təhlükəsizliyi sistemi və neft ixracı sahəsində ölkəmizlə uğurlu tərəfdaşlıq edən dövlətlər üçün də müstəsna əhəmiyyət kəsb edən neft boru kəməridir.

Bu gün Azərbaycan beynəlxalq aləmə sürətlə inteqrasiya edən, dinamik iqtisadi inkişafını və etibarlı siyasi sabitliyini təmin etmiş müstəqil dövlətdir. Artıq dövlətimiz mötəbər kürsülərdən öz sözünü deməyə, haqlı mövqeyini bildirməyə və qorumağa qadir, zəngin iqtisadi potensiala malikdir. Müstəqilliyin ilk illərində məlum səbəblərdən bərbad hala düşmüş Azərbaycan iqtisadiyyatında tərəqqiyə nail olunmasına, çox kövrək və zəif dövlət siyasətinin güclü və aparıcı mövqeyə yüksəlməsinə, qədim tarixi və çoxəsrlik zəngin mədəniyyəti olan millətimizin bütün dünyada tanıdılması istiqamətində yorulmaz fəaliyyətinə görə əvəzsiz dövlət xadimi Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi müxtəlif dövrlərdə həyata keçirdiyi strategiya bütün sahələrdə əldə edilən uğurların əsasını təşkil edir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi bir-birindən fərqlənən iki müxtəlif sistemə - sosializm və demokratik cəmiyyət dövrünə təsadüf edir. Dahi Heydər Əliyev istər sosializm, istərsə də bazar iqtisadiyyatı şəraitində Azərbaycan Respublikasını böhrana düşmüş vəziyyətdə qəbul etmişdir. Eyni zamanda, hər iki sistemdə də tezliklə respublikamızda böhran aradan qaldırılmış və sürətli tərəqqiyə nail olunmuşdur. Bütün bunlar isə düşünməyi bacaran hər bir kəsi bir sual qarşısında qoyur: bu uğurları ölkəmizə bəxş edən hansı amillər və səbəblərdir? Təbii ki, bu suala müxtəlif cavablar verilə bilər, amma ölkəyə uğur gətirən başlıca amilin ümummilli lider Heydər Əliyevin islahatçılıq məharəti və yüksək idarəçilik keyfiyyətləri olması danılmazdır. Tək bircə faktı qeyd etmək kifayətdir ki, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1970-1980-ci illərdə ölkəmizin kənd təsərrüfatına, ondan əvvəlki yarım əsr ərzində, yəni 1920-1970-ci illərdə cəlb edildiyindən daha çox sərmayə qoyulmuşdur. Bu isə kənd təsərrüfatında dinamik inkişafın əsasını qoyaraq, hələ o zaman Azərbaycanı digər müttəfiq respublikalardan önə keçirmişdir.

Müasir dövr bir sıra səciyyəvi xüsusiyyətlərlə xarakterizə edilir ki, bu da, əsasən, qloballaşma və inteqrasiya ilə bağlıdır. Belə ki, məhz qeyd edilən amillərin təsiri ilə, qlobal iqtisadi məkana yaxından inteqrasiya olunmaq, dünya bazarına rəqabətqabiliyyətli məhsullarla çıxa bilmək, qloballaşma prosesinin təsiri ilə formalaşan sosial-iqtisadi və ictimai-siyasi proseslərdə, milli və dövlətçilik prinsiplərinə uyğun fəal iştirak etmək hər bir milli iqtisadiyyatın davamlı inkişafının zəruri şərtinə çevrilmişdir. Artıq hər bir müstəqil dövlətin, o cümlədən Azərbaycan Respublikasının dünya iqtisadiyyatında cərəyan edən sosial-iqtisadi proseslərdə iştirakı labüd və

qaçılmazdır. Bu zaman isə qarşıda duran başlıca vəzifə milli və iqtisadi təhlükəsizlik baxımından zərərli ola biləcək proseslərin qarşısını almaq, eləcə də beynəlxalq təcrübənin vəd etdiyi nailiyyətlərə yiyələnməkdir.

Uğurla reallaşdırılan Heydər Əliyev strategiyasının nəticəsi olaraq, artıq Azərbaycan dövləti müstəqilliyin möhkəmləndirilməsi, ölkədə tarazlı və davamlı inkişafın təmin edilməsi, regionların sosial-iqtisadi inkişafı, iqtisadi təhlükəsizliyin, eləcə də onun ərzaq, enerji, nəqliyyat və sairə kimi istiqamətlərinin etibarlı təminatı məqsədilə atılan addımları, əldə edilən nəticələri və inanılmaz iqtisadi uğurları ilə beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilmişdir. Artıq dünya birliyinə yaxından inteqrasiya olunan müstəqil Azərbaycan Respublikasında bütün proseslər xalqımızın milli mentalitetinə və dövlətçilik prinsiplərinə uyğun olaraq, beynəlxalq birliyin, nüfuzlu beynəlxalq təşkilatların rəyləri nəzərə alınmaqla qloballaşma dövrünün tələbləri səviyyəsində qurulur. Ölkə başçısı cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə reallaşan iri yerli və regional layihələr sayəsində Azərbaycan dövləti öz iqtisadi nəticələri ilə aparıcı dövlətlər sırasındadır.

Azərbaycan tarixinin Heydər Əliyev dövrü taleyüklü məqamları, dövlətçilik uğrunda barışmaz mübarizəsi ilə bütöv bir mərhələ, epoxadır. Zaman etibarilə bizlərə çox yaxın olduğu üçün bu gün həmin dövrün tarixi qiymətini, dəyərini bəlkə də düzgün ifadə etmək bir qədər çətindir. Ancaq heç şübhəsiz, dövlətçilik, idarəetmə, regional siyasət, elm, təhsil, mədəniyyət, idman və s. digər sahələr haqqında yazılacaq nüfuzlu kitablar məhz Heydər Əliyev irsindən qaynaqlanacaq, xalqımızın bu dahi oğlunun fəaliyyəti elmi və elmi-pedaqoji cəhətdən daha mükəmməl öyrəniləcəkdir. Təbii ki, bu kitablarda ümummilli lider Heydər Əliyev təcrübəli və qətiyyətli dövlət başçısı, müdrik siyasətçi, məsuliyyətli vətəndaş, cəsur və tədbirli sərkərdə, vətənini və millətini hədsiz məhəbbətlə sevən bir insan kimi, çətin anlarda hər zaman millətinin yanında olmağı bacaran alternativsiz lider kimi hərtərəfli öyrənilməlidir. Bütün bunlar gənc nəsil üçün xüsusilə vacibdir.

Hamımıza məlumdur ki, ulu öndər ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə elmin, təhsilin hamisinə çevrilmişdi. Deyirlər ki, bir milləti məhv etmək üçün onun elmini, təhsilini məhv etmək kifayətdir. Məhz bu kontekstdən yanaşdıqda da Heydər Əliyev Azərbaycan xalqını məhv olmaqdan xilas etdi. Ölkəyə rəhbərliyinin ilk illərində sürətli iqtisadi inkişafın təmin edilməsini, Azərbaycanın dünyaya yaxından inteqrasiya olunmasını, beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilməsini əsas məqsəd kimi seçən ümummilli lider ölkədə təhsil islahatları aparılmasının zəruriliyini vurğulayaraq, hər bir inkişafın elm və təhsildən asılı olduğunu qeyd edirdi. Ulu öndərin sözləri ilə desək: "Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir".

Müşahidələr göstərir ki, həqiqətən də, belə bir prinsipin seçilməsi Azərbaycanda təhsil siyasətinin əsas qayəsini təşkil etmişdir. Son dövrlər həyata keçirilən islahatlar proqramına əsasən fəaliyyətin prioritet istiqamətlərinə diqqət yetirdikdə Heydər Əliyevin elm-təhsil strategiyasının nə qədər fundamental bir konsepsiya olduğu aydınlaşır.

Milli intibahın təminatında başlıca vasitə sayılan elm və təhsil cəmiyyətdə bir çox problemlərin həllində mühüm rol oynayır. Dünyəvi təhsilə inteqrasiya yolunu seçən müstəqil Azərbaycan Respublikasında bu strateji sahəyə milli təhlükəsizliyin mühüm amillərindən biri kimi xüsusi diqqətin yetirilməsi belə bir nəticəyə gəlməyə əsas verir ki, ölkədə elm və təhsil problemləri ümumi inkişaf və dövlət siyasəti ilə vəhdət təşkil edir. Tərəqqiyə gedən yolda uğurlar qazanmaq üçün dünyanın sivil dövlətləri ilə diplomatik əlaqələrin yaradılması, sosial-iqtisadi, mədəni, elm-təhsil və digər sahələrdə beynəlxalq norma və tələblərə uyğun əməkdaşlığın qurulması zəruridir. Bunun üçün də xüsusilə strateji əhəmiyyətə malik olan elm-təhsil sistemində köklü islahatların aparılması Azərbaycan dövlətinin ali məqsədinə çevrilmişdir.

Ulu öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, bu sahələrin problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə başçısı mövcud problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun elm strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Ulu öndərin təhsil siyasəti konsepsiyasına əsaslanaraq demək olar ki, elm və təhsil iki müstəqil sahəni ehtiva etsə də, onların birini digərindən təcrid etmək mümkün deyildir.

Ümumiyyətlə, dövlətin iqtisadi qüdrətini, onun elm tutumlu və rəqabətə davamlı məhsulunun istehsalını elmi tədqiqatların, xüsusən fundamental tədqiqatların səviyyəsi, əhatəliyi və yüksək ixtisasa malik milli kadrlar müəyyən edir. Başqa sözlə desək, müasir dünya gerçəkliklərinə yaxından bələd olan, yeni texnika və texnologiyanı mənimsəyən kadrlar yetişdirmədən, eləcə də ölkədə həyata keçirilən islahatları elmi baxımdan əsaslandırmadan mövcud təbii-iqtisadi resurslardan tam və səmərəli istifadə etmək və arzu edilən iqtisadi inkişaf səviyyəsinə nail olmaq qeyri-mümkündür. Məhz bu reallığı nəzərə alan ulu öndər Heydər Əliyevin "Milli Elmlər Akademiyası sistemində yüksək ixtisaslı elmi kadrlar hazırlayan təhsil qurumlarının, respublikada prioritet istiqamətlərdə müstəqil fəaliyyət göstərən dövlət elm-təhsil mərkəzlərinin işi daim gücləndirilməli və

zənginləşdirilməlidir" fikri də Milli Elmlər Akademiyasının potensialının və texniki bazasının gücləndirilməsinə, ölkədə fundamental elmi tədqiqatların aparılmasına yönəlmişdir.

Təbii ki, bu prosesdə inteqrasiyanın vacib amillərindən biri də AMEA-da çalışan müxtəlif ixtisaslı alimlərin birgə proqramlar üzərində işləməsi, ölkənin hərtərəfli inkişafını təmin etməyə qadir olan kompleks inkişaf proqramlarının hazırlanması olduqca vacib şərtlərdən biridir. Belə proqramların həyata keçirilməsi elmi kadr potensialının inkişafına və təhsil səviyyəsinin yüksəlməsinə gətirib çıxarar ki, bu da tədqiqatların sürətlənməsinə, eləcə də nəzəri-praktiki əhəmiyyətinin artmasına kömək edər.

Bütün sahələrdə olduğu kimi, Azərbaycan elminin də inkişafı istiqamətində əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan siyasət bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Prezidenti elm adamlarının maddi-sosial rifahının yaxşılaşdırılması yolunda tarixi əhəmiyyətli fərman və sərəncamlar, islahat və dövlət proqramlarını təsdiq edən sənədlər imzalamışdır ki, bunlar birbaşa elmdə və təhsildə problemlərin həllinə yönəlmişdir. 2009-cu ildə "Azərbaycan elminin inkişafına dair Milli Strategiya"nın qəbul edilməsi, elmin inkişaf fondunun yaradılması və s. tədbirlər dövlətimizin başçısı İlham Əliyevin milli elmimizə diqqət və qayğısının bariz nümunəsidir.

Hər zaman olduğu kimi, dövlət proqramında da elm sahəsi hökumətin prioritet istiqaməti kimi əsas yer tutur. Elmi ictimaiyyətə, tədqiqat və araşdırmalara göstərilən dövlət qayğısı növbəti illərdə də davam etdiriləcəkdir. Qarşıdakı illərdə elm sahəsində ən mühüm vəzifələrdən biri aparılan tədqiqatların praktiki əhəmiyyətinin artırılmasından, elmi tədqiqat və layihə institutları ilə təsərrüfat subyektləri arasında əlaqələrin daha sıx qurulmasının təmin edilməsindən ibarətdir. Dövlət proqramı üzrə elm sahəsində aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur ki, bu da davamlı iqtisadi inkişafın başlıca amillərindən biridir: elmi-texniki potensialın qorunması və inkişaf etdirilməsi, elmi kadr potensialının artırılması və onun sosial müdafiəsinin gücləndirilməsi, innovasiya proseslərinin sürətləndirilməsi, elmi müəssisələrdə və ali məktəblərdə aparılan elmi-tədqiqat fəaliyyətinin əlaqələndirilməsi, xarici ölkələrdə təhsil almaq və təcrübə keçmək yolu ilə müasir tələbata uyğun yüksək ixtisaslı kadrların hazırlanması və s.

Ulu öndər Heydər Əliyevin elm və təhsil siyasətinin prioritetlərindən biri də hər iki sahənin idarə edilməsinə yeni yanaşmanın olmasıdır. Belə ki, əgər güclü təhsil sistemi gələcəyin elmi tədqiqatçılarının hazırlanmasına xidmət edirsə, elmi araşdırmalar da, öz növbəsində, ölkənin ayrı-ayrı sahələrinin müasir tələbata və qabaqcıl təcrübəyə uyğun inkişafını təmin etməlidir. İstər müasir tələbata uyğun elmi kadrların hazırlanmasında, istər Azərbaycan Respublikasının beynəlxalq aləmə və qlobal iqtisadi mühitə sürətlə inteqrasiya etməsində, istərsə də ölkənin sosial-iqtisadi istiqamətlərdə ciddi uğurlar qazanmasında ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə reallaşan islahatlar xüsusi rol oynamışdır. Heydər Əliyevin bir dövlət və siyasi xadim kimi ölkə, milli iqtisadiyyat, eləcə də onun ayrı-ayrı sahələri qarşısında duran problemlərə kompleks şəkildə yanaşması bu gün əldə edilən böyük uğurların əsas təkanvericisidir. Məhz bu yanaşmanın nəticəsidir ki, sosial-iqtisadi və siyasi istiqamətlərdə qazanılmış müvəffəqiyyətlər bir-birinə təkan verməklə vahid bir prosesə çevrilir. Eyni zamanda, əsas uğurlardan biri də ondan ibarətdir ki, həyata keçirilən islahatlar içərisində elmin inkişafı prioritet kimi qəbul edilir və həyata keçirilən bütün islahatlar elmi cəhətdən əsaslandırılır. Bu baxımdan qanunların və digər normativ sənədlərin qəbul edilməsində, dövlət proqramlarının hazırlanmasında və s. elm adamlarının yaxından iştirak etməsi, müvafiq mütəxəssislərin iştirakı ilə geniş müzakirələrin aparılması xüsusi qeyd olunmalıdır.

Günümüzün reallıqları sübut edir ki, hazırda Prezident cənab İlham Əliyev tərəfindən bu istiqamətdə aparılan işlər Azərbaycan xalqının xoş gələcəyinə xidmət edəcək səviyyədə uğurla davam etdirilir. Eyni zamanda, bütün bunlar elm adamlarının dövlət qayğısına cavab olaraq daha da fəallaşmalarını, ölkədə həyata keçirilən islahatların elmi əsaslarının işlənib hazırlanmasında xüsusi fəallıq göstərmələrini tələb edir.

“**Azərbaycan**”.-2011.-26 aprel.-N 88.-S.4.

# HEYDƏR ƏLİYEV ELM VƏ TƏHSİLİN, MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN HİMAYƏDARI İDİ

**Məmməd ƏLİYEV,**
Azərbaycan Müəllimlər İnstitutu Quba filialının direktoru,
filologiya elmləri doktoru, professor

**Azərbaycanda elm və təhsilin inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimiz ölkəyə rəhbərliyinin bütün dövrlərində bu sahəyə böyük diqqət və qayğı göstərmiş, xalqın intellektual səviyyəsinin yüksəldilməsinə mühüm önəm vermişdir. Dahi şəxsiyyət Azərbaycanda rəhbərliyə başladığı ilk günlərdən təhsilin inkişafına mane olan amilləri aradan qaldırmaq üçün ciddi mübarizə tədbirlərinə başlamış, ölkəmiz üçün layiqli vətəndaşların yetişdirilməsini günün başlıca vəzifəsi hesab etmişdir. Ulu öndərimiz o illərdə ali və orta ixtisas müəssisələri üçün yeni binaların tikintisini diqqət mərkəzində saxlamış, təhsilin müasir standartlar səviyyəsində yenidən qurulmasını zəruri saymışdır. Bunlarla yanaşı, elmdə-təhsildə qazanılan uğurların iqtisadiyyatın ən müxtəlif sahələrində tətbiqini respublikamızın güclənməsində, tanınmasında əsas şərt kimi irəli sürmüşdür.**

Ulu öndərimiz elmə, təhsilə qayğını, diqqəti müstəqil Azərbaycan Respublikasına rəhbərliyi dövründə də əsirgəməmişdir. Dövlət müstəqilliyinin ilk illərində ölkə rəhbərliyinin biganə münasibəti nəticəsində acınacaqlı vəziyyətə düşən bu sahələr Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra böhrandan çıxmışdır. Xatırladım ki, 1993-cü ilin iyununda yenidən hakimiyyətə qayıdan ümummilli liderimiz ictimaiyyət nümayəndələri ilə Elmlər Akademiyasında keçirdiyi görüşdə ziyalıların, alimlərin cəmiyyətdəki roluna böyük önəm verdiyini xüsusi vurğulamış, elmin, təhsilin inkişafı üçün əlindən gələn səyi əsirgəməyəcəyini bildirmişdir.

Yeri gəlmişkən, burada diqqəti bir məqama da yönəltmək istərdim. Dahi rəhbərimiz ölkəmizə rəhbərliyinin bütün dövrlərində alimlərimizə aktual mövzularda tədqiqat aparmalarını tövsiyə etmiş, elmi işlərində dövlət, xalq üçün son dərəcə gərəkli strateji məsələlərin önə çəkilməsinin zəruriliyini bildirmişdir.

Ümummilli liderimiz çıxışlarında daim humanitar elmlərin xüsusi əhəmiyyətə malik olduğunu göstərmiş, ədəbiyyat, mədəniyyət tarixinin yazılmasının vacibliyinə toxunmuş, çoxəsrlik Azərbaycan tarixinin dərindən öyrənilməsinin və yüksək elmi prinsiplər əsasında şərhinin dövlət üçün mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırmışdır: "Əlbəttə, müstəqil Azərbaycanda fizika, riyaziyyat, biologiya, kimya və başqa fənlərin hamısı inkişaf etməlidir. Ancaq bunların hərəsinin özünəməxsus çərçivəsi vardır. Amma tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq lazımdır. O cümlədən, mədəniyyətimizin, ədəbiyyatımızın, elmimizin tarixi lazımdır".

Heydər Əliyev müstəqillik dövründə Azərbaycan təhsil sisteminə inteqrasiyasını başlıca vəzifə kimi qarşıya qoymuşdur . Buna görə də o dövrdə elm-təhsil sahəsində islahatların ilk növbədə reallaşdırılmasına başlanması təsadüfi deyildi. Nəticədə ölkənin sosial-iqtisadi inkişafında təhsilin aparıcı amil kimi önə çıxarılmasına nail olundu. Heydər Əliyevin rəhbərliyi altında hazırlanan və 1995-ci ildə qəbul edilən müstəqil Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsində hər bir ölkə vətəndaşının pulsuz icbari ümumi orta təhsil almaq hüququ təmin edildi. Eyni zamanda, milli təhsilin alternativ əsaslar üzrə yüksəlişini təmin etmək, daha səviyyəli təhsil uğrunda rəqabətə nail olmaq məqsədilə bu sahədə özəl sektorun inkişafına da şərait yaradıldı.

Ümummilli liderimiz Heydər Əliyevin "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" 30 mart 1998-ci ildə imzaladığı sərəncam, həmçinin 15 iyun 1999-cu il tarixdə təsdiqlədiyi "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" Azərbaycanda təhsil standartlarının yeni dövrün şərtlərinə uyğunlaşdırılması prosesinə böyük təkan verdi. Adı çəkilən sənədlərdə irəli sürülən vəzifələrə uyğun milli təhsilimizin məzmunca təkmilləşdirilməsi, dünya təcrübəsi və milli ənənələr əsasında inkişafı təmin olundu, müasir tədris proqramları, dərsliklər hazırlandı, ayrı-ayrı təhsil sahələri və fənlər üzrə yeni standartlar tətbiq edildi.

Ümummilli liderimizin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyun 2003-cü il tarixli fərmanı, habelə "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" 4 oktyabr 2002-ci il tarixli sərəncamı təhsil sisteminin müasirləşdirilməsi prosesini sürətləndirdi, təhsil işçilərinin sosial problemlərinin həllinə müsbət təsir göstərdi. Ulu öndərimiz gənc nəslin təlim-tərbiyəsinə həmişə xüsusi həssaslıqla yanaşmışdır. Çıxışlarında təhsilin mürəkkəb bir sahə olduğunu daim vurğulamış, bildirmişdir ki, təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatı, nə ticarət. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır. Ona görə də hələ ötən əsrin 70-ci illərindən

başlayaraq Heydər Əliyevin rəhbərliyi ilə təhsil sistemində ciddi islahatlar həyata keçirilmişdir. 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarları təhsil sahəsində ciddi dönüş yaratmışdır.

Hamımız yaxşı xatırlayırıq: ötən əsrin 70-ci illərinin əvvəllərinə qədər respublikada orta ümumtəhsil məktəblərinin dərsliklərlə təminatı zəif idi. Ümummilli liderin təşəbbüsü və səyi ilə bu problem də qısa müddətdə həll olundu - 1978-ci ildən etibarən şagirdlərin dərsliklərlə pulsuz təminatı ənənəsinin əsası qoyuldu. Respublika rəhbərliyinin təhsilin inkişafına göstərdiyi xüsusi diqqət yeni orta ümumtəhsil məktəblərinin tikintisində də öz təsdiqini tapdı. Həmin illər ərzində 350 mindən çox şagird yeri olan 849 məktəb inşa edilib istifadəyə verilmişdi. 1980-ci ildə respublikada ümumtəhsil məktəblərində oxuyan şagirdlərin sayı 710 minə çatmışdı ki, bu da 1970-ci illə müqayisədə təxminən iki dəfə artıq idi.

Ümummilli lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdı. Böyük rəhbər keçmiş ittifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Heydər Əliyevin təşəbbüsü və himayəsi ilə SSRİ-nin 50-dən çox böyük şəhərinin 170-dən artıq ali məktəbində 80-ə yaxın ixtisas üzrə 15 min azərbaycanlı gənc təhsil almışdır. Halbuki 1969-cu ilə qədər bu rəqəm hər il 40-50 nəfər olmuşdur.

Ulu öndər Heydər Əliyev azərbaycançılığın əsası olan ana dilinin də inkişaf etdirilməsi məqsədilə mühüm tədbirlər həyata keçirmişdir. Ümummilli liderimiz yaxşı bilirdi ki, xalqa milli-mənəvi dəyərlərini aşılamaq üçün ona ilk növbədə öz dilini qaytarmaq və sevdirmək lazımdır. Rus dilinin dövlət dili olmasına baxmayaraq, ulu öndər həmin dövrdə bütün rəsmi nitqlərini Azərbaycan dilində edir, bu, bütün rəhbər vəzifəlilərdən də tələb olunurdu. Hələ 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiya layihəsi qəbul edilərkən, Azərbaycan dilinin bu ali sənəddə ana dili kimi təsbitlənməsi və qorunub saxlanılması məhz dahi şəxsiyyətin milli məfkurəyə sadiqliyindən irəli gəlirdi. Onu da unutmayaq ki, bu fakt, eyni zamanda totalitar ideologiyanın təzyiqi altında ulu öndərimizin böyük cəsarətindən xəbər verirdi. Bu hadisədən 23 il keçəndən sonra, yəni 2001-ci ilin oktyabrın 17-də Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 10-cu ildönümünə həsr olunmuş təntənəli mərasimdə dahi şəxsiyyət nitqində bildirəcəkdi: "Yadımdadır, 1978-ci ildə biz Azərbaycan Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil edəndə Moskvadan bizim başımıza nə qədər oyunlar açıldı, nə qədər təzyiqlər göstərildi. Ancaq biz bu təzyiqlərə dözdük".

Heydər Əliyevin ötən əsrin 70-ci illərində nəşr olunmuş 3 cildlik "Müasir Azərbaycan dili" dərsliyinə dövlət mükafatı verməsi, ana dilində elmi nəşrlərin sayının çoxalması, elmi tədqiqatların və araşdırmaların məhz bu dildə aparılmasının dəstəklənməsi də qeyd edilən məqamla - milli müəyyənliyin əsas məsələsi ilə bağlı idi.

Bəli, ötən əsrin 70-ci illərinin əvvəllərində azərbaycançılığın ən mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi ulu öndərimizin fəaliyyətində özünü qabarıq büruzə vermişdir. Bu, eyni zamanda dahi şəxsiyyətin - millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir - qiymətli fikirlərində öz ifadəsini tapmışdır.

Ulu öndərimizin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyul 2001-ci il tarixli və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli fərmanları böyük tarixi-siyasi əhəmiyyətə malik sənədlər idi. Bu tarixi sənədlər görkəmli dövlət xadiminin ana dilinə, ədəbiyyatına, mədəniyyətinə, bir sözlə, mənəviyyatına böyük sevgisindən xəbər verirdi. Bu sənədlər azərbaycançılıq strategiyasının təməl prinsipləri idi...

Ulu öndərimiz Heydər Əliyev hələ gənclik illərindən bədii ədəbiyyata böyük maraq göstərirdi, Azərbaycan və dünya klassiklərinin, müasir şair və yazıçıların yaradıcılığını həvəslə mütaliə edirdi. Buna görə də insan dünyagörüşünün formalaşmasında bədii əsərlərin mühüm rol oynadığını daim vurğulayırdı. Dahi şəxsiyyətin 1997-ci ildə Azərbaycan yazıçılarının onuncu qurultayında nitqində dediyi sözlər də həmin fikrin bariz nümunəsidir: "Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm... mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum... O illərdə, o uşaqlıq və gənclik illərində onlar mənə o qədər təsir edib ki, mən onları unutmamışam. Bu "oxumuşam, unutmamışam" sözləri sadəcə bir fikir deyil. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam".

Dahi rəhbər Azərbaycan klassiklərindən Nizami Gəncəvi, Məhəmməd Füzuli, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Hüseyn Cavid, eyni zamanda dövrümüzün görkəmli şair və yazıçılarından Səməd Vurğun, Rəsul Rza, Mirzə İbrahimov, İlyas Əfəndiyev, Süleyman Rüstəm, Qabil, Məmməd Araz, Mirvarid Dilbazi və başqalarının dövlət səviyyəsində yubileylərinin keçirilməsinə xüsusi həssaslıqla yanaşmış, həmin sənətkarların xalqa daha yaxından tanıdılması üçün onlarla bağlı elmi-tədqiqat işlərinin aparılmasının zəruriliyini daim vurğulamışdır. Dahi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibətilə Heydər Əliyev yubileyi keçirən Təşkilat Komitəsinin 1 avqust 1994-cü il tarixli yığıncağındakı nitqində demişdir: "Bu yubileyi keçirərkən biz xalqımızın özünü tanımasını təmin edəcəyik və etməliyik. Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın. Şübhəsiz ki, bu yubileyin keçirilməsi indiki nəslin... tariximizin nə qədər zəngin olduğunu və Azərbaycan xalqının dünya mədəniyyətinə necə töhfələr verdiyini dərk etməsinə şərait yaradacaq və hər bir azərbaycanlıda, ilk növbədə, gənc nəsildə milli iftixar, vətənpərvərlik hisslərini daha da yüksəldəcəkdir. Bunun özü müstəqil Azərbaycanda bizim üçün çox gərəkli bir amildir".

Heydər Əliyev Azərbaycan klassiklərinin əsərlərinin dünya miqyasında təbliğinə xüsusi əhəmiyyət verirdi. Bu, təsadüfi deyildi. Çünki belə halda Azərbaycan da , xalqımız da dünyada tanınır, eyni zamanda ədəbiyyatımıza, mədəniyyətimizə maraq güclənirdi. Nizami Gəncəvi, Məhəmməd Füzuli kimi qüdrətli sənətkarların yubileylərinin, "Kitabi-Dədə Qorqud" dastanının yaranmasının 1300 illiyinin beynəlxalq miqyasda keçirilməsi bu baxımdan mühüm önəm daşıyırdı.

Ümummilli liderimizin ədəbiyyat konsepsiyasının əsasında tarixilik və müasirliyin vəhdəti dayanırdı. Dahi rəhbər bu vəhdəti özündə təcəssüm etdirən əsərlərin yazılmasını qarşıya mühüm vəzifə kimi qoyurdu. Heydər Əliyevin Azərbaycan yazıçılarının VII qurultayındakı tarixi nitqinə diqqət yetirsək, bunu aydın görə bilərik: "Yazıçı sözü xalqın ənənələrinə uyğun gəlməlidir. Gerçəkliyin bədii inikasının başlıca obyekti müasirlikdir... Azərbaycan tarixinin bir çox parlaq səhifələri bədii ədəbiyyatda layiqincə əks etdirilməmişdir... Tarixi simaların obrazları yaradılan və tariximizin çox mühüm dövrləri tərənnüm olunan ədəbi əsərlər ən yüksək səviyyədə yazılmalıdır. Bunlar çox mühüm, deyək ki, mürəkkəb mövzulardır. Belə mövzuların öhdəsindən yalnız yüksək istedadlı, dərin bilikli sənətkarlar gələ bilərlər. Buna görə də tarixi mövzuda əsər yaratmağa girişməzdən əvvəl ədib öz qüvvə və imkanlarını götür-qoy etməli, böyük və ciddi hazırlıq işi aparmalıdır".

Ulu öndərimiz milli özünəməxsusluğumuzu daim diqqət mərkəzində saxlayır, onun daha da zənginləşməsinə xüsusi önəm verirdi. Başqa sözlə, ulu öndər xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, azərbaycançılıq ideologiyasının cəmiyyətdə möhkəm sosial dayaqlar taparaq zehinlərdə möhkəmlənməsi, davamlı inkişaf prosesində mənəvi stimula çevrilməsi üçün bütün zəruri tədbirləri həyata keçirirdi. 1997-ci ilin yanvarın 31-də Azərbaycan Elmlər Akademiyasının 50 illik yubiley mərasimində nitq söyləyən Heydər Əliyev bu sahənin inkişaf strategiyasını, gələcək hədəflərini açıqlamışdır. Dahi rəhbər ictimai və humanitar elm sahələrində yeni dövrün tələblərinə uyğun yeniləşmənin, eləcə də sovetlər birliyi dövründən qalmış, köhnəlmiş stereotiplərdən, səmərəsiz tədqiqat metodlarından uzaqlaşmağın vacibliyindən söhbət açmış, xüsusən də tarixçiləri Azərbaycanın keçmişi ilə bağlı həqiqətləri daha obyektiv araşdırmağa çağırmışdır. "Biz indi xalqımızın tarixinin yaradılması işini gərək diqqət mərkəzinə alaq. Xatırlaya bilərsiniz, 70-ci illərdə mən dəfələrlə Elmlər Akademiyasının qarşısında vəzifə qoymuşdum ki, Azərbaycanın tarixi yazılmalıdır. Amma bu gün mənim haqqım var deyəm ki, tarixçilərimiz bu vəzifəni yerinə yetirmədilər, Azərbaycanın tarixi yazılmamışdır. Bizim tarixçilərimiz bir tərəfdən çəkişmə ilə məşğul oldular, hərə öz konsepsiyasını irəliyə aparmağa çalışdı. Amma Azərbaycanın tarixi yazılmalıdır. Alimlərimizin, tarixçilərimizin günahından yox, o vaxtkı ümumi ideologiyanın təsiri, yaxud bu ideologiyanın tələbi ilə yazılan tarix də, şübhəsiz ki, indi bizi qane edə bilməz. Məktəbə gedən gənc gərək Azərbaycanın tarixini bilsin, oxusun, öyrənsin. Amma o, köhnə dərsliklərdən bunu öyrənə bilməz. Dərsliyi də hərə öz istədiyi kimi yazmamalıdır. Gərək bizim xalqımızın tarixi yazılsın ki, onun əsasında da gənclər üçün, orta və ali təhsil məktəbləri üçün tarix dərslikləri yazılsın"...

Heydər Əliyev eyni zamanda göstərirdi ki, Azərbaycanın humanitar-ictimai və fundamental elm sahələri sürətlə yeniləşərək yeni ictimai-iqtisadi formasiyanın reallıqlarına cavab verməli, dövlət və dövlətçiliklə bağlı praktiki məqsədlərin gerçəkləşməsində, milli maraq və mənafelərin, ideologiyanın möhkəmlənməsində, ümumən cəmiyyətin proqressiv dəyərlər əsasında inkişafında lokomotivə çevrilməlidir.

Heydər Əliyevin milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq milli təhsil quruculuğu sahəsində başladığı islahatlar bu gün ulu öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Yeni məktəblərin tikilib istifadəyə verilməsi, köhnə məktəblərin yenidən qurulması, təhsil ocaqlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində əhəmiyyətli addımlar atılır. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarında bölgələrdə müasir dövrün tələbləri səviyyəsinə cavab verən təhsil ocaqlarının yaradılmasına

xüsusi diqqət yetirilmişdir. Sürətli iqtisadi inkişaf dövrünü yaşayan ölkəmizdə getdikcə təhsilə ayrılan vəsaitlərin həcmi artırılır, bu sahədə zamanın tələblərindən irəli gələn yeni islahatların həyata keçirilməsi üçün zəmin yaranır. Görülən işlərin real nəticələri isə həqiqətən də ürəkaçandır. Məsələn, Azərbaycanda təhsillə bağlı həyata keçirilən ən böyük tədbirlərdən biri orta ümumtəhsil məktəblərinin maddi-texniki bazasının yeniləşdirilməsi, o cümlədən, müasir informasiya-kommunikasiya vasitələri ilə təmin edilməsidir. Ölkə Prezidenti cənab İlham Əliyevin orta ümumtəhsil məktəblərinin informasiya-kommunikasiya texnologiyaları ilə təminatı proqramı uğurla icra olunaraq artıq başa çatdırılmışdır. Əsas məqsədi Azərbaycan Respublikasında yeni informasiya texnologiyalarından istifadə etməklə təhsilin keyfiyyətini yüksəltmək, vətəndaşlara təhsil almaqla bərabər müasir İKT-yə yaxından bələd olmaq və ölkə təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyasına imkan verən vahid təhsil informasiya mühitini yaratmaq, əhalini informasiyalaşdırılmış cəmiyyətə hazırlamaq olan bu proqram çərçivəsində bütün bölgələrdə orta tədris məktəblərinə müasir kompyuter dəstləri verilmiş, onların internetə çıxışı təmin edilmişdir.

Azərbaycanda təhsil sahəsində həyata keçirilən dövlət siyasətinə Heydər Əliyev Fondu da özünün dəyərli töhfələrini verməkdədir. Heydər Əliyev Fondunun milli təhsilimizin inkişafı ilə bağlı həyata keçirdiyi layihələr nəinki təhsil işçilərinin və şagirdlərin, bütün ölkə ictimaiyyətinin dərin rəğbətinə səbəb olmuşdur. Heydər Əliyev Fondunun geniş spektri əhatə edən fəaliyyəti, həyata keçirdiyi çoxşaxəli layihələr hər bir azərbaycanlıya yaxşı məlumdur. Fondun məqsədi ulu öndər Heydər Əliyevin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi siyasətin tədqiqinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə dəstək vermək, Azərbaycanın tərəqqisi üçün Heydər Əliyevin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı proqramları, o cümlədən elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid layihələri gerçəkləşdirmək, milli-mənəvi dəyərlərə sadiq gənclər yetişdirmək, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq, milli mədəniyyətimizi təbliğ etmək, mənəvi dəyərlərimizi yaşatmaqdır. Milli Məclisin deputatı, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi mədəni-ictimai tədbirlər xalqımızın, dövlətimizin inkişafına, dövlətçiliyimizin möhkəmləndirilməsinə, Azərbaycanın dünya birliyində öz layiqli yerini tutmasına doğru istiqamətlənmişdir. Heydər Əliyev Fondu ümummilli liderimizin ideyalarına sadiq qalaraq bu istiqamətlərdə ardıcıl və məqsədyönlü işləri davam etdirməkdədir. Zəngin mədəni irsimizin dünyada tanıdılması, təhsil, səhiyyə və mədəniyyət sahələrində əhəmiyyətli layihələri gerçəkləşdirməklə fond qısa müddətdə bütün cəmiyyətin diqqətini cəlb etmişdir.

Heydər Əliyev Fondunun fəaliyyətində əsas istiqamətlərdən biri də təhsilin inkişafına töhfələr verməkdir. Təsadüfi deyil ki, Mehriban xanım Əliyeva "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının ikinci mərhələsinin təqdimatına həsr olunmuş "dəyirmi masa"da çıxışında demişdir: "Müasir dünyada hər bir ölkənin inkişafı, onun dünya birliyinə inteqrasiyası üçün təhsilin rolu əvəzsizdir. Məhz buna görə Heydər Əliyev Fondu yarandığı ilk gündən təhsilə yardımı öz fəaliyyətinin prioritet istiqaməti elan etmişdir".

Bəli, ölkəmizin inkişafında, dünyaya inteqrasiyasında təhsilin rolunun əvəzsiz olduğunu nəzərə alan Heydər Əliyev Fondu bu sahədə bir neçə irimiqyaslı layihə hazırlamış və uğurla həyata keçirmişdir. Bunlardan ən mühümü ölkəmizdə çox böyük əks-səda doğurmuş "Yeniləşən Azərbaycana yeni məktəb" proqramıdır. Avropaya inteqrasiya yolunu tutmuş ölkəmizdə yeni təhsil sisteminin qurulmasının vacibliyini önə çəkən Mehriban xanım Əliyevanın müəllifi olduğu bu layihədə bölgələrimizdə yeni məktəblərin tikilib istifadəyə verilməsi, təhsil müəssisələrinin əsaslı təmiri, maddi bazanın yaxşılaşdırılması, tədris prosesinin səviyyəsinin yüksəldilməsi prioritet məsələ kimi qarşıya qoyulmuşdur. Layihə çərçivəsində tikilib istifadəyə verilən məktəblərin hər birində laboratoriya, kompyuter otaqları, idman salonu və meydançaları, kitabxana, yeməkxana, ayrıca istilik sistemi vardır. Xüsusən ucqar kəndlərdə yeni məktəb binalarının inşası Mehriban xanımın təhsilə göstərdiyi böyük diqqət və qayğının nəticəsi kimi yüksək qiymətə layiqdir.

**“Xalq qəzeti”.-**2011.-27 aprel.-N 89.-S.7.

## HÜQUQİ DÖVLƏTİN BANİSİ

**Əli HÜSEYNLİ,**
Milli Məclisin Hüquq siyasəti və
dövlət quruculuğu komitəsinin sədri

**Tarixi təcrübə sübut edir ki, hər hansı dövlətin inkişafını, dünya birliyində öz layiqli yerini tuta bilməsini şərtləndirən əsas amillərdən biri də xalqın özünə lider olaraq seçdiyi şəxsin fərdi keyfiyyətləridir. Çünki dövlətin böyük və ya kiçikliyindən, malik olduğu iqtisadi potensialdan asılı olmayaraq, son nəticədə onun hərtərəfli tərəqqisini müəyyən edən əsas məqamlardan biri məhz lider amilidir. Mürəkkəb, ziddiyyətlərlə dolu tarixi prosesləri düzgün qiymətləndirən, geosiyasi dəyişikliklərin gedişini xalqının maraqları çərçivəsinə yönəltməyə qadir olan, bu məqsədlə praqmatik, rasional gedişlər etməyi bacaran, hadisələrin inkişaf axarını ən azı bir neçə on il qabaqlaya bilən lider ölkəsinin inkişafına, təhlükəsizliyinə nail olmaqla yanaşı, dünya birliyində onun mövqelərini də gücləndirir.**

Ümummilli lider Heydər Əliyevi XX əsrin ictimai-siyasi fenomeni kimi artıq bütün dünya qəbul edir. Birmənalı demək olar ki, zəmanəmizin ən böyük azərbaycanlısı olan Heydər Əliyev həm millətin, həm də bəşəriyyətin dahilik meyarlarına cavab verən tarixi şəxsiyyətdir. Bəşəriyyət dahi dedikdə fenomenal şəxsi keyfiyyətlərlə, şəxsiyyətin ensiklopedik savadı, təfəkkürünün elmin və təcrübənin bütün istiqamətlərində fəaliyyətə qadir olması ilə yanaşı onun ictimai maraqları şəxsi maraqlardan üstün tutmasını, yalnız öz xalqı üçün deyil, dünya, bəşər üçün gördüyü işlərin miqyasını əsas götürür.

XX-XXI əsrlərin qovuşuğunda Azərbaycanın demokratik və bəşəri dəyərlərə sadiq müstəqil bir dövlət kimi formalaşması böyük öndərimizin siyasi fəaliyyətinin nəticəsi, 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə onun hakimiyyətə qayıdışının bəhrəsidir.

Bu qayıdış təkcə Heydər Əliyev ömrünün deyil, həm də bütün tariximizin xüsusi mərhələsi, əsaslı dönüş nöqtəsidir. Heydər Əliyevin qayıdışı Azərbaycan xalqının itirilmiş inamını özünə qaytardı, sabaha, gələcəyə ümidini artırdı. Ümummilli lider "Mən buraya vəzifə üçün gəlməmişəm. Mən böyük yükü ancaq ona görə çiynimə götürmüşəm ki, xalqın həyatının ən çətin dövründə ona xidmət göstərim" deyərək ömrünün qalan hissəsini də xalqının xilasına həsr edəcəyini bildirmişdir. Beləliklə, Azərbaycan dövlətçiliyinin müqəddəratı həll edildiyi 1993-cü ilin iyun günlərində dünya miqyaslı siyasi dövlət xadimi Heydər Əliyevi yenidən hakimiyyətə dəvət edən Azərbaycan xalqı parçalanıb dağılmaq və müstəqilliyini itirmək kimi dəhşətli fəlakətdən xilas oldu.

Hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, xalqın birliyinin təmin olunmasını, ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş üçün zəmin yaradılmasını özünün dövlətçilik strategiyasının prioritet istiqaməti kimi müəyyənləşdirdi.

"Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin onuncu ildönümü haqqında" Azərbaycan Respublikası Prezidentinin 20 mart 2001-ci il tarixli fərmanında deyilir: "Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini əldə etməsi keçmiş SSRİ-də və bütün dünyada 80-ci illərin ortalarından başlayaraq gedən ictimai-siyasi proseslərin labüd nəticəsi idi. Bu obyektiv tarixi gerçəklik SSRİ-nin dağılmasına, Kommunist Partiyasının tarix səhnəsindən çəkilməsinə və nəticə etibarilə müttəfiq respublikaların hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxardı. Bunun ardınca yeni müstəqil dövlətlərin, eləcə də Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması beynəlxalq hüquq normalarının qanuni təzahürü oldu".

Həmin dövrdə həlli vacib olan məsələlərdən biri davam etməkdə olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin gedişinə təsir göstərə biləcək qəti addımlar atılması idi. Bunsuz ölkənin ərazi bütövlüyünü qorumaq, daxili ictimai sabitliyə nail olmaq mümkün deyildi. Milli Ordunun döyüş qabiliyyətinin artırılması və genişmiqyaslı müdafiə tədbirlərinin həyata keçirilməsi, döyüşçülərdə yaranan ruh yüksəkliyi sayəsində düşmənə qarşı bir neçə uğurlu hərbi əməliyyat aparıldı. Belə şəraitdə beynəlxalq qüvvələrin təsiri altında münaqişə tərəfləri atəşi dayandırmaq barədə razılığa gəldilər. Bu barədə saziş 1994-cü ilin mayında imzalandı və münaqişənin dinc vasitələrlə həllində prioritet istiqamət sayıldı. Ötən on yeddi ildə bu istiqamətdə göstərilən səylər konkret nəticə verməsə də, atəşkəs rejimi Azərbaycanın müstəqil dövlət kimi yaşamasını və sonrakı inkişafını şərtləndirən amillərdən biri olmuşdur.

O da mühüm faktdır ki, Heydər Əliyevin ölkə iqtisadiyyatında köklü dəyişikliyə gətirib çıxaran və müstəqil dövlətimizə beynəlxalq nüfuz qazandıran yeni neft strategiyasının həyata keçirilməsinə məhz atəşkəsdən sonra başlanıldı və 1994-cü ilin sentyabrında dünyanın iri neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsi imzalandı.

Lakin müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsi, sosial-iqtisadi inkişafın bünövrəsinin qoyulması Azərbaycanı yenidən anarxiya və başıpozuqluq girdabına salaraq, bundan öz mənfəətləri naminə istifadə etmək istəyən daxili və xarici qüvvələrin ciddi müqaviməti ilə üzləşdi. 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişinə silahlı cəhdlərin göstərilməsi müstəqil dövlətçiliyimiz üçün növbəti sınaq mərhələləri oldu. Ulu öndər Heydər Əliyevin qətiyyəti, xalqın öz qüdrətli liderini fəal şəkildə dəstəkləməsi nəticəsində bu təhlükəli cəhdlərin qarşısı alındı, ölkədə hakimiyyəti zor və silah gücünə ələ keçirmək ənənəsinə birdəfəlik son qoyuldu.

1993-1995-ci illər müasir Azərbaycanın tarixinə dövlət müstəqilliyinin qorunub saxlanılması uğrunda mübarizə dövrü kimi yazılmışdır. İctimai-siyasi sabitliyin və qanunun aliliyinin bərqərar edilməsi bu dövrün ən mühüm nailiyyəti oldu və ümummilli liderimizə dövlət quruculuğunda, iqtisadi, sosial və mədəni həyatda böyük işlərə başlamaq, geniş- miqyaslı və ardıcıl islahatlar aparmaq üçün əlverişli imkan yaratdı.

Böyük öndərimiz əmin idi ki, demokratik dəyərlərin üstünlüyünü qəbul edən, azadlığın, haqq və ədalətin bərqərar olunduğu dövlət qurmaq istəyən hər bir ölkə, hər bir xalq üçün Konstitusiya birinci dərəcəli əhəmiyyət daşıyır. Siyasi, iqtisadi, hüquqi sistemin köklü şəkildə dəyişdiyi, cəmiyyətdə keçid dövrünün başlandığı bir vaxtda Konstitusiyanın - Əsas Qanunun rolu qat-qat artır.

Bu bir həqiqətdir ki, müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul olunması və müstəqillik tariximizdə ilk parlament seçkiləri keçirilməsi ilə Azərbaycanın tarixi inkişafının yeni bir mərhələsi başlandı. Ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanmış ümumxalq müzakirəsinə çıxarılan Konstitusiya layihəsi həmin il, yəni 1995-ci ilin noyabrın 12-də keçirilən referendumda - ümumxalq səsverməsində qəbul edilmişdir. Bu mühüm tarixi əhəmiyyətə malik sənəd ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun möhkəm təməlini təşkil etdi. Azərbaycan Respublikasının Konstitusiyasında yüz illər boyu bəşəriyyətin əldə etdiyi mütərəqqi dəyərlər fundamental hüquq və azadlıqları öz əksini tapmışdır. Ölkəmizdə müasir dövlət quruculuğunun həyata keçirilməsinin, bəşəri-demokratik dəyərlərə uyğun dövlətçilik təsisatları və cəmiyyət modeli formalaşdırılmasının hüquqi əsasları yarandıqdan sonra Azərbaycanın müstəqilliyi möhkəmləndirilərək əbədi və dönməz xarakter almışdır.

1995-2003-cü illər Azərbaycanın demokratik prinsiplərə sadiq bir dövlət kimi inkişafında mühüm bir dövr olmaqla, dünya birliyinə inteqrasiya yolunda ona çox böyük nailiyyətlər qazandırdı. Heydər Əliyevin siyasi müdrikliyi və uzaqgörənliyi, gərgin zəhməti və təşəbbüskarlığı, yaradıcı dühası və beynəlxalq nüfuzu olmadan bütün bunları əldə etmək mümkünsüz idi.

Bu illərdə Konstitusiyada təsbit olunmuş hakimiyyət bölgüsü prinsipinə uyğun dövlət idarəetmə sistemi formalaşmış, icra, qanunvericilik və məhkəmə orqanlarının səmərəli fəaliyyəti təmin edilmişdir. Ölkəmizdə müxtəlif yönlü siyasi partiyaların, ictimai təşkilatların, həmçinin, kütləvi informasiya vasitələrinin azad fəaliyyəti üçün yaradılmış şərait memarı və qurucusu Heydər Əliyev olan müstəqil dövlətimizdə siyasi plüralizmin, fikir azadlığının, demokratiyanın bərqərar olduğunu bariz şəkildə təsdiqləyir. Ümummilli liderimiz vicdan və azadlıqlarının təmin edilməsini, tolerantlıq mühitinin formalaşmasını əsl vətəndaş cəmiyyətinin formalaşdırılması üçün mühüm amil sayırdı və respublikaya rəhbərliyi dövründə bu amilləri dövlət həyatının ayrılmaz hissəsinə çevirmişdi. Heydər Əliyevin bilavasitə təşkilatçılığı və rəhbərliyi ilə ölkəmizin məhkəmə-hüquq sistemi beynəlxalq standartlara uyğun şəkildə yenidən qurulmuşdur. Bu sahədə aparılan islahatlar hüquqi dövlət quruculuğunun uğurla həyata keçirilməsi, ölkəmizdə insan hüquqlarının təmin edilməsi və qorunması üçün böyük əhəmiyyət kəsb etmişdir.

Göründüyü kimi, Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası baxımından hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu siyasətini də diqqət mərkəzində saxlayan ümummilli lider bu istiqamətdə mühüm islahatların həyata keçirilməsini təmin etmişdir. Böyük strateq hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü nitqlərində vurğulamış, vətəndaşlara göstərilən hüquqi yardımın səviyyəsinin müntəzəm surətdə artırılmasının əsas təşəbbüskarı kimi çıxış etmişdir.

Ulu öndərin rəhbərliyi altında hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir.

1993-cü ilin iyun ayından ölkəmizdə ölüm cəzasının icrasına moratorium qoyulmuş, daha sonra ölüm cəzasının tətbiqi məhdudlaşdırılmış və 1998-ci il fevralın 10-da Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm cəzası

ləğv edilmişdir. Bu tarixi addım fəlsəfi, hüquqi düşüncələrə, dərin elmi təhlilə, dünya təcrübəsinə və reallığımıza əsaslanmaqla humanizm, insanpərvərlik, ədalət, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan ulu öndərimizin gələcək nəsillərə misilsiz töhfəsi oldu.

Dövlət başçısının 3 fevral 1998-ci il tarixli müraciətində deyilirdi: "Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm". Ölüm cəzasının ləğvi Azərbaycanın hüquqi-demokratik dövlət quruculuğu yolunda olmasını bir daha sübut etdi. Heydər Əliyev hər kəsin hüquqlarına hörmətlə yanaşılmasını, şəxsiyyətinin alçaldılması, zorakılıq, işgəncə və bu kimi qeyri-qanuni üsul və vasitələrə yol verilməsi hallarının aradan qaldırılmasını hüquq-mühafizə orqanları qarşısında vacib vəzifə kimi qoymuşdur.

Ulu öndər ölkəmizdə demokratiyanın daha da inkişaf etdirilməsi sahəsində görülən tədbirlərin genişləndirilməsi məqsədi ilə insan hüquqları sahəsində həyata keçiriləcək tədbirlərin istiqaməti və konsepsiyasını ümumdövlət səviyyəsinə qaldırdı.

Onun rəhbərliyi ilə ölkədə siyasi, iqtisadi, sosial islahatların həyata keçirilməsi, dövlətimizin beynəlxalq birliyə tam hüquqlu üzv kimi qəbul olunması üçün müvafiq hüquqi bazanın yaradılması istiqamətində mühüm addımlar atılmışdır. Belə ki, Milli Məclisin qəbul etdiyi qanunvericilik aktlarının əsas ruhu insan hüquqlarının müdafiəsi təminatlarının yaradılması olmuşdur.

Bunlar bir tərəfdən Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunun təmin edilməsi, çoxpartiyalılığa, müxtəlif siyasi cərəyanların ideyalarının azad ifadə olunmasına əsaslanan siyasi sistemin yaradılması, insan və vətəndaş hüquqlarının qorunmasına qulluq edən təsisatların formalaşması, digər tərəfdən isə, ölkəmizdə azad rəqabətə, inkişaf etmiş mülki dövriyyəyə, müasir bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın qurulması məqsədini güdən qanunvericilik tədbirlərini əhatə etmişdir. Bir sözlə, sadalanan məqamlar bir daha onu sübut edir ki, bu gün insan hüquq və azadlıqlarına, qanunların aliliyinə hörmət prinsiplərinə prioritet istiqamət kimi müstəsna dəyər verən müstəqil Azərbaycanın hüquqi, dünyəvi və demokratik dövlət imicinin formalaşmasında ümummilli liderimizin xidmətləri əvəzsizdir.

Böyük öndərimizin ölkəyə rəhbərliyi dövründə dövlət quruculuğunda, insan hüquqları və azadlıqlarının təmin edilməsi yolunda mühüm işlər görülməsi ilə yanaşı, digər istiqamətlərdə də möhtəşəm nailiyyətlər qazanılmışdır. Hakimiyyətə gəldiyi ilk günlərdən Heydər Əliyevin gələcəyə hesablanan strateji proqramında sosial müdafiənin daim gücləndirilməsi çoxşaxəli fəaliyyətin başlıca məqsədi kimi təyin olunmuşdur. Öz xalqının rifahının yüksəldilməsi və sosial müdafiəsinin gücləndirilməsi ümummilli liderin bütün fəaliyyətinin əsas məqsədini, onun dövlətçilik fəlsəfəsinin leytmotivini təşkil etmişdir. Ulu öndər tarixi və sosial-iqtisadi proseslərin axarını əvvəlcədən müəyyən edə bilir, öz xalqının rifahı naminə qərarlar qəbul olunan zaman əsl qətiyyət nümayiş etdirirdi. Belə ki, ümummilli lider bazar münasibətləri əsasında formalaşan sosialyönümlü milli iqtisadiyyatın qurulmasını əsas strategiya kimi müəyyən etmiş və Azərbaycan xalqının sosial rifahının artırılmasını fəaliyyətinin başlıca məqsədi kimi elan etmişdi.

Beləliklə, respublikamızın həyatının bütün sahələrində ümummilli liderimizin müəyyənləşdirdiyi prinsiplər uğurla reallaşdırılmışdır.

Böyük siyasətin miqyası həm də onun uzun tarixi dövrün reallıqlarına cavab verərək yetirdiyi varislər tərəfindən uğurla davam etdirilməsi, cəmiyyəti irəli aparması, xalqı xoş güzərana qovuşdurması ilə ölçülür. Bu mənada Heydər Əliyevin formalaşdırdığı böyük siyasət çağdaş demokratik Azərbaycanın ideya-siyasi palitrasının fövqündə dayanaraq alternativsiz bir strategiya kimi cəmiyyətdə tam dəstəklənir və ən layiqli varis - Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir. Belə ki, Heydər Əliyev uzaqgörən siyasətçi, ümummilli lider kimi Azərbaycanın gələcəyini fikirləşərək özündən sonra siyasi kursu davam etdirəcək monolit siyasi komandanın və İlham Əliyev kimi siyasi liderin yetişdirilməsinin qayğısına qalmışdır. Prezident İlham Əliyev öz səlahiyyətlərini icra etməyə başlayandan Heydər Əliyev siyasətini uğurla və yaradıcılıqla həyata keçirdiyini sübut etmişdir. Dövlət başçısı əsası ulu öndər tərəfindən qoyulan daxili sabitlik sahəsində qazanılmış nailiyyətləri siyasi həmrəyliyin təmin olunması və milli birliyin möhkəmləndirilməsi istiqamətində daha da inkişaf etdirmiş, faktiki olaraq dönməzliyə çevirmişdir.

Bu gün Prezident İlham Əliyevin ölkəmizə böyük istedad və bacarıqla rəhbərlik etməsi, Heydər Əliyev siyasi kursunu, onun Azərbaycan naminə amallarını böyük ustalıqla davam etdirməsi hər birimizin qəlbini iftixarla döyündürür. Onun bir fikri də çox diqqətçəkəndir: "Mən Heydər Əliyevdən öyrənmişəm və bundan sonra da öyrənəcəyəm. Bütün qərarları qəbul etməzdən əvvəl fikirləşirəm ki, Heydər Əliyev bu vəziyyətdə hansı addımı atardı". Cənab İlham Əliyev Prezident kimi elə ilk addımlarından sübut etdi ki, ona inanmaq, arxalanmaq və güvənmək olar! Dövlət başçısı özü Azərbaycanın hərtərəfli inkişafını belə ifadə edir: "Əgər məndən soruşsalar:

"Azərbaycan bu gün necə ölkədir? ", mən iftixarla cavab verərdim: "Azərbaycan bu gün sabit və intensiv inkişaf edən ölkədir. Azərbaycan bu gün demokratiya və inkişaf yolu ilə gedən müstəqil ölkədir..."

Azad, demokratik və hüquqi dövlət quruculuğu zamanı isə daxili sabitliyin qorunub saxlanılması ölkədə həm iqtisadi inkişafa, həm də dövlət quruculuğu prosesinə təkan verən, onu sürətləndirən amillərdən biridir. Prezident İlham Əliyevin həyata keçirdiyi, elmi cəhətdən əsaslandırılmış, məqsədyönlü iqtisadi siyasəti nəticəsində ölkəmizdə böyük uğurlar qazanılmışdır. Son 5-6 ildə Azərbaycanda ümumi daxili məhsul iki dəfə, dövlət büdcəsi isə on dəfə artmışdır. Dünyanın qabaqcıl ölkələrinin maliyyə böhranından əziyyət çəkdiyi bir dövrdə Azərbaycan öz iqtisadi inkişaf sürətinə görə bütün dünyada öncüllər sırasındadır. Dinamik inkişaf ictimai-sosial həyatın bütün sahələrini əhatə edir, sosial problemlər sürətlə həll edilir, insanların sosial rifahı daha da yüksəlir. Bütün bunlar, qazanılan uğurlar bir daha göstərir ki, ümummilli lider Heydər Əliyevin müdrik siyasəti davam edir.

Müasir Azərbaycanın sosial sahədə əldə etdiyi zəngin təcrübə isə analoji inkişaf yoluna yeni qədəm qoymuş digər ölkələr üçün də model rolunu oynaya bilər. Bu modelin unikallığı məhz ondan ibarətdir ki, yeni mülkiyyət formalarının yaranmasına, sahibkarlığın daha sürətli inkişafına yönəlmiş kompleks tədbirlər sistemi əhalinin sosial baxımdan nisbətən zəif təbəqəsinin maraqlarını inkar etmir. Aztəminatlı təbəqənin mənafeyi mütləq nəzərə alınır və ölkəmizdə bazar iqtisadiyyatının inkişafı üçün atılan hər bir addım bu təbəqənin maraqları ilə uzlaşdırılmaqla həyata keçirilir.

Ümummilli liderimizin gərgin diplomatik səyləri və şəxsi nüfuzu sayəsində müstəqil respublikamız bir çox nüfuzlu beynəlxalq təşkilatlara tamhüquqlu üzv qəbul edilmiş və öz beynəlxalq mövqeyini möhkəmləndirmişdir. Heydər Əliyevin xarici siyasəti dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu əsaslar üzərində faydalı əlaqələr qurmağa yönəlmişdi. Bu siyasət indi də möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, qələbələrlə zəngin və diqqətəlayiq bəhrələrini verir.

Bu gün Azərbaycan dövlətçiliyinin ən mühüm problemi ölkənin ərazi bütövlüyünün təmin olunmasıdır. Ermənistanın təcavüzü nəticəsində işğal altına düşmüş ərazilərimizin azad edilməsi, viran qoyulmuş kənd və şəhərlərimizin bərpa olunması, sayı bir milyona çatan və uzun müddətdən bəri məşəqqətli köçkün həyatı sürən soydaşlarımızın doğma yurd-yuvalarına qayıtması Azərbaycan dövlətinin qarşısında çox məsul bir vəzifə, ən vacib məqsəd kimi durur. Müstəqil dövlətçiliyimizin banisi, müasir Azərbaycanın memarı, böyük öndərimiz Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən cənab İlham Əliyev xalqımıza hədsiz məhrumiyyətlər, müstəqil dövlətimizə böyük itkilər gətirmiş təcavüzə son qoyulması üçün çoxşaxəli və səmərəli hüquqi-diplomatik addımlar atır. Bütün bunların nəticəsidir ki, indi dünya birliyi Ermənistanın işğalçı və təcavüzkar siyasət yeritdiyini daha yaxşı anlayır. Bu mənada təsadüfi deyildir ki, bir çox mötəbər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən qərar və qətnamələrdə Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktı birmənalı şəkildə dəfələrlə təsdiqlənmiş, onun təcavüzkarlıqdan əl çəkməsi tələb olunmuşdur.

Prezident İlham Əliyev bir məqamı dəfələrlə çıxışlarında vurğulamışdır ki, bu ağrılı problemin həllinin hərb variantı istisna edilmir və Azərbaycan Ordusu bu gün işğal edilmiş torpaqlarını azad etmək iqtidarındadır. Bu bəyanat real gücdən qaynaqlanır. Çünki, möhkəm maddi-texniki bazaya və yüksək döyüş qabiliyyətinə malik güclü ordunun formalaşması ümummilli lider Heydər Əliyev kimi, Prezident İlham Əliyevin də dövlətçilik fəaliyyətinin ən parlaq istiqamətlərindəndir. Məhz bunun nəticəsidir ki, bu gün Azərbaycan Ordusu potensialına görə Cənubi Qafqaz regionunda ən güclü hərbi qüvvə hesab edilir.

Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi düzgün xarici siyasət strategiyasının böyük siyasi-intellektual potensiala malik olan cənab İlham Əliyev tərəfindən prezidentlik dövrünün 8 ili ərzində böyük müvəffəqiyyətlə həyata keçirilməsi Azərbaycan Prezidentinin dövlətimiz qarşısında duran taleyüklü məsələləri xalqımızın dəstəyi ilə başa çatdıracağına, ümummilli lider Heydər Əliyevin müstəqil dövlətçilik irsini öz quruculuq fəaliyyəti ilə daha da zənginləşdirəcəyinə tam əminlik yaradır.

**Azərbaycanın bugünkü və gələcək nəsillərinin Heydər Əliyevin şərəfli adı və ölməz ruhu qarşısında müqəddəs borcu onun şah əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışmaq, milli birliyimizə sədaqətlə xidmət göstərməkdir. Bu gün xalqımız ulu öndər Heydər Əliyevin siyasi varisi - praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar şəxsiyyət kimi dünya siyasətində özünəməxsus yer tutan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşmişdir.**

"**Azərbaycan**".-2011.-28 aprel.-N 90.-S.3.

## UĞURLU HÜQUQİ İSLAHATLARIN MÜƏLLİFİ

**Fuad ƏLƏSGƏROV,**
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının
Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri

**Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan demokratik hüquqi dövlət quruculuğu prosesi Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin müəyyən etdiyi müasirləşmə kursu çərçivəsində davam etdirilir. Ölkəmizdə həyata keçirilən hüquqi islahatlara tarixi prizmadan nəzər salsaq, müasir hüquq sisteminin keçdiyi inkişaf yolunu iki mərhələyə bölmək olar:**

İlkin mərhələdə azad cəmiyyətin formalaşmasına, demokratik, hüquqi dövlət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, müstəqil ədalət mühakiməsinin həyata keçirilməsinə yönəlmiş hüquqi islahatların konsepsiyası işlənib hazırlandı. Ümummilli liderin təşəbbüsü ilə 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycanın Konstitusiyası qəbul olundu. Əsas hüquqi təminatları və dövlət idarəçilik prinsiplərini müəyyən edən Konstitusiyanın qəbul olunması hüquqi islahatlar üçün zəmin yaratdı.

1996-cı il fevralın 21-də Prezident Heydər Əliyevin təşəbbüsü ilə yaradılan Hüquqi islahatlar komissiyası hüquqi islahatların prioritetlərini müəyyən etdi və Sovet İttifaqından miras qalmış hüquq sisteminin fəlsəfəsini tamamilə dəyişdirdi. Mahiyyət etibarı ilə hüquqi islahatlar qanunların və digər normativ hüquqi aktların hazırlanması, hüquqi informasiya sisteminin genişləndirilməsi, məhkəmə və bütövlükdə hüquq-mühafizə sisteminin islahatı, qanunların əhali arasında təbliği və öyrənilməsi kimi tədbirləri özündə ehtiva edir.

Komissiya tərəfindən hazırlanmış "Məhkəmələr və hakimlər haqqında", "Konstitusiya Məhkəməsi haqqında" qanunlar ölkəmizdə məhkəmə-hüquq islahatları sahəsində mühüm addım olmaqla müstəqil məhkəmə sisteminin yaradılmasına və fəaliyyət göstərməsinə imkan yaratdı, konstitusiya nəzarəti ideyası qəbul edildi.

"Məhkəmələr və hakimlər haqqında" 1997-ci ildə qəbul olunmuş qanun məhkəmə hakimiyyətinin müstəqil fəaliyyət göstərməsinə hüquqi zəmin yaratdı. Qanun yeni məhkəmə sistemini, onun təşkilati əsaslarını müəyyən edərək məhkəmələrin və hakimlərin müstəqilliyinin təmin edilməsinə, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminatın verilməsinə, məhkəmələrin fəaliyyətinin və hakimlərin statusunun beynəlxalq standartlara uyğunlaşdırılmasına yönəldi, köhnə hüquq sistemindən miras qalmış korporativ münasibətləri aradan qaldırdı.

Başlıca məqsədi Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsinə yönəlmiş 1997-ci ildə qəbul edilən "Konstitusiya Məhkəməsi haqqında" qanun və sonrakı dəyişikliklər Konstitusiya Məhkəməsinə Konstitusiyanın və qanunlarının şərh edilməsi, qanunların və digər normativ aktların, Ali Məhkəmənin qərarlarının, bələdiyyə aktlarının, dövlətlərarası və hökumətlərarası müqavilələrin Konstitusiyaya uyğunluğunun yoxlanılması, insanların konstitusion hüquqlarının müdafiəsi ilə bağlı fərdi şikayətlərə baxılması, qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrin həll edilməsi səlahiyyətlərini verir.

1999-cu ildə qəbul edilən "Prokurorluq haqqında" qanunla prokurorluğun məhkəmələr üzərində nəzarəti və bazar iqtisadiyyatı münasibətlərinin inkişafına mane olan ümumi nəzarət funksiyaları ləğv olundu, onun mülki və kommersiya işlərinə müdaxilə etməsi məhdudlaşdırıldı. İnsan hüquq və azadlıqlarını məhdudlaşdıran prosessual hərəkətlərin prokurorluq tərəfindən həyata keçirilməsinə qanunla müəyyən edilmiş hallarda və qaydada yalnız məhkəmənin qərarına əsasən yol verildi. Prokurorluğun islah-əmək müəssisələrində və nəqliyyatda qanunların icrasına nəzarət funksiyaları aradan qaldırıldı.

2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən prokurorluğa həm də qanunvericilik təşəbbüsü hüququ verildi.

Hüquqi islahatlar çərçivəsində qəbul olunan "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanun hər bir şəxsin məhkəmə prosesində, ibtidai istintaqda və təhqiqatda öz hüquq və mənafelərinin müdafiəsini həyata keçirmək üçün seçdiyi vəkilə müraciət etməsinə, tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etməsinə, fiziki və hüquqi şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin müdafiə edilməsinə, onlara yüksək keyfiyyətli hüquqi yardım göstərilməsinə imkan yaratdı.

İnsan hüquq və azadlıqlarının təmin və polisin fəaliyyətini tənzim etmək məqsədilə "Polis haqqında" qanun qəbul edildi. Bu qanuna görə polis ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması və onların açılması, habelə yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində fəaliyyət göstərir. Polis fəaliyyəti üzərində nəzarət mexanizmləri

təsis edildi, polis əməkdaşlarının qanunsuz hərəkətlərindən və qərarlarından məhkəməyə müraciət etmək hüququ təsbit olundu.

Penitensiar sistemdə də islahatlar aparıldı. SSRİ respublikaları arasında ilk dəfə ölkəmizdə cəzaçəkmə müəssisələri, istintaq təcridxanaları Daxili İşlər Nazirliyinin tərkibindən çıxarılaraq Ədliyyə Nazirliyinin tabeçiliyinə verildi. Məhkəmə qərarlarının, həmçinin cinayət işləri üzrə azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların icrasını təmin edən məhkəmə icraçıları xidməti yaradıldı.

Ölkəmizdə aparılan hüquq islahatlarının mühüm tərkib hissəsi olaraq dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi məqsədilə 2001-ci ildə demokratik dövlətlərin hüquq sistemində mühüm rol oynayan qeyri-məhkəmə müdafiə mexanizmi - Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) institutu yaradıldı.

Qanunvericilik tədbirləri çərçivəsində yeni hüquq sisteminin fəaliyyət göstərməsi üçün Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessual Məcəllələr, Əmək, Ailə, İnzibati Xətalar, Gömrük, Vergi və digər məcəllələri, "Notariat haqqında", "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında", "Təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən məhkəməyə şikayət edilməsi haqqında" və digər qanunlar qəbul edildi.

Avropa Şurasına üzvlük ərəfəsində Azərbaycan ümumavropa hüquq məkanına inteqrasiya olunmağa başladı. Ölkəmiz 2001-ci il yanvarın 25-də Avropa Şurasına üzv qəbul edildi, Avropa İnsan hüquqları konvensiyasına qoşuldu və bununla Avropa İnsan hüquqları məhkəməsinin yurisdiksiyasını qəbul etdi. Azərbaycanın Avropa Şurasının sənədlərinə qoşulması milli qanunvericiliyin təkmilləşməsi, Avropa standartlarına cavab verən yeni qanunların qəbul edilməsi prosesini daha da sürətləndirdi.

İqtisadiyyatın inkişafı üçün əlverişli şəraitin yaradılması, dövlət və yerli idarə orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması, korrupsiyaya qarşı mübarizənin normativ və institusional əsaslarının təkmilləşdirilməsi, eləcə də korrupsiyaya qarşı mübarizə ilə əlaqədar götürülmüş öhdəliklərin həyata keçirilməsi məqsədilə bir sıra tədbirlər görüldü. 2004-cü il yanvarın 13-də Avropa Şurası ilə əməkdaşlıqda hazırlanmış "Korrupsiyaya qarşı mübarizə haqqında" qanun və korrupsiyaya qarşı mübarizə üzrə dövlət proqramı qəbul edildi. Dövlət proqramı normativ - hüquqi aktların qəbul edilməsi, dövlət qulluğuna qəbul və dövlət orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsini, o cümlədən iqtisadi və sosial sahədə, dövlət orqanları, o cümlədən hüquqmühafizə orqanlarının fəaliyyəti sahəsində tədbirlərin, maarifləndirmə və beynəlxalq əməkdaşlığın həyata keçirilməsini və s. məsələləri nəzərdə tutur. Bu məqsədlə Korrupsiyaya qarşı mübarizə üzrə komissiya və Baş Prokurorun yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsi yaradıldı.

İctimai birliklərin qeydiyyatı və müraciət prosedurlarını nizamlayan qaydaların yenidən nəzərdən keçirilməsi və təkmilləşdirilməsi üzrə də əsaslı tədbirlər görülür. Avropa Şurasının ekspertləri və yerli qeyri-hökumət təşkilatları ilə əməkdaşlıqda hazırlanmış "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu 2003-cü il dekabrın 12-də qəbul edildi.

Ümumiyyətlə, dövlətin öz üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi istiqamətində həyata keçirilmiş tədbirlər sırasında 2002-ci il avqustun 24-də keçirilmiş referendum nəticəsində Konstitusiyaya dəyişikliklərin edilməsi, habelə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Konstitusiya qanununun qəbul edilməsi müstəsna əhəmiyyətə malikdir. Bu tədbirlərin həyata keçirilməsi əsasən insan hüquqlarının daha etibarlı təminatı mexanizminin yaradılması, Azərbaycan Respublikasının Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi, məhkəmə islahatları ilə bağlı dəyişikliklərin təsbit edilməsi, hakimiyyət bölgüsü nəzəriyyəsi, dövlətin idarə edilməsi ilə əlaqədar mövcud qaydaların təkmilləşdirilməsi ilə bağlıdır.

Konstitusiyada edilmiş bu dəyişikliklərdə Azərbaycanın İnsan hüquqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulması, referendumun və seçkilərin keçirilməsi, hər kəsin, habelə ümumi yurisdiksiya məhkəmələrinin, ombudsmanın Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ və digər məsələlər öz əksini tapdı. Bununla, Konstitusiya Məhkəməsinin səlahiyyətləri artırıldı.

Milli insan hüquqları standartlarının Avropa İnsan hüquqları Konvensiyasına uyğunlaşdırılması məqsədilə 2002-ci ilin dekabrında "Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Konstitusiya qanunu qəbul edildi.

Beləliklə, ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda həyata keçirilən hüquqi islahatların birinci mərhələsində demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni üçpilləli məhkəmə sistemi, konstitusiya nəzarəti, insan hüquqları üzrə müvəkkil kimi yeni təsisatlar yaradıldı, hüquq-mühafizə fəaliyyəti təkmilləşdirildi, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin fəaliyyəti genişləndi,

insan hüquqlarının təmini sahəsində effektiv müdafiə mexanizmləri formalaşdırıldı. Beynəlxalq prinsiplərə və müasir tələblərə uyğun mütərəqqi qanunlar və məcəllələr qəbul edildi.

Hüquq sisteminin müasirləşməsi mərhələsində həyata keçirilən iqtisadi islahatlar, eyni zamanda, hüquq sisteminin daha da təkmilləşdirilməsini şərtləndirir. Ümummilli lider Heydər Əliyevin hüquqi siyasət kursunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hüquq sisteminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılması məqsədilə bir sıra mühüm təşəbbüslərlə çıxış edir.

Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə Azərbaycan-Avropa Şurası birgə işçi qrupu yaradıldı, hakimlərin müstəqilliyi, seçilməsi, təyin edilməsi, ixtisasının artırılması və fəaliyyətinin qiymətləndirilməsi məsələləri üzrə müvafiq fəaliyyət planı, bir sıra normativ hüquqi sənədlər hazırlandı. "Məhkəmə-Hüquq Şurası haqqında" qanun qəbul olundu, "Məhkəmələr və hakimlər haqqında" qanuna əsaslı dəyişikliklər edildi.

Dəyişikliklərə əsasən hakimlərin özünüidarə orqanı kimi nəzərdə tutulan və demokratik əsaslarla formalaşdırılan Məhkəmə-Hüquq Şurası ölkəmizdə məhkəmə sisteminin təşkilini təmin edir, vakant hakim vəzifələrinə namizədlərin seçilməsinin təşkili, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi, habelə məhkəmələr və hakimlərlə bağlı digər məsələləri səlahiyyəti daxilində həll edir.

Hakimlərin seçki komitəsi haqqında əsasnamə, vakant hakim vəzifələrinə namizədlərin seçilməsi qaydaları təsdiq edildi, ölkəmizdə ilk dəfə olaraq əsasən hakimlərdən, habelə prokurorluq, vəkillik, müvafiq icra hakimiyyəti və qanunvericilik orqanının nümayəndələrindən və hüquqşünas-alimlərdən ibarət Hakimlərin Seçki Komitəsi yaradıldı. Hakimlərin Seçki Komitəsi vakant hakim vəzifələrini tutmaq istəyən şəxslərin sənədlərini toplayır, onların hakim peşəsinə yiyələnmələri üçün şəffaf surətdə yazılı və şifahi imtahan təşkil edir, hakim vəzifəsinə namizədləri ilkin uzunmüddətli tədris kurslarına cəlb edir, müsahibə yolu ilə onların peşə yararlılığını müəyyən edir. Hakimlərin səlahiyyət müddəti son yaş həddinə - 65 yaşınadək uzadılır. 2005-ci ildən etibarən hakimlərin yeni prosedurlara əsasən seçilməsi qaydası tətbiq olunur və bu sahədə beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edilir.

Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli fərmanı ölkəmizin məhkəmə sisteminin müasirləşdirilməsi və inkişafında mühüm əhəmiyyət kəsb edir. Məhkəmə sisteminin müasirləşdirilməsinin başlıca məqsədi regionların sosial-iqtisadi inkişafı şəraitində əhalinin hüquq institutlarına və hüquqi yardıma tələbatının ödənilməsi üçün regionlarda yeni apelyasiya və iqtisad məhkəmələrinin yaradılması, vətəndaşların narazılıqlarına səbəb olan sui-istifadəyə, süründürməçilik, korrupsiya hallarının və digər nöqsanların aradan qaldırılması, ədalət mühakiməsinin səmərəliliyinin, məhkəmə qərarlarının icra vəziyyətinin yaxşılaşdırılması və vətəndaşların məhkəmələrə inamının artırılması, məhkəmələrə müraciət imkanlarının asanlaşdırılmasıdır.

Hazırda yüksək tələblərə cavab verən yeni nəsil hüquqşünaslarından ibarət hakim korpusunun formalaşdırılması üçün kompleks tədbirlər görülüb. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə ölkəmizin məhkəmə sisteminə daxil olan məhkəmə hakimlərinin sayı artırılaraq 600 nəfərə çatdırılıb.

Eyni zamanda, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi ləğv edilərək, onun əvəzinə dörd regional ağır cinayətlər məhkəməsi yaradılıb. Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Hərbi Məhkəməsi ləğv edilərək, onun səlahiyyətləri hərbi məhkəmələrə verildi. Ağdam, Qazax, Lənkəran və Sumqayıt hərbi məhkəmələrinin ləğv edilməsi hesabına qalan hərbi məhkəmələrin və yeni yaradılmış Cəlilabad hərbi məhkəməsinin say tərkibi və ərazi yurisdiksiyaları genişləndirildi.

2005-ci ilin oktyabrın 21-də "İnzibati icraat haqqında" qanun, 2009-cu ilin iyunun 30-da İnzibati Prosessual Məcəlləsi qəbul olunub. Qanun və məcəllə 2011-ci il yanvarın 1-də qüvvəyə minib.

Son illər hüquq sistemində aparılan islahatlar, qəbul edilmiş qanunvericilik aktları ədliyyə orqanlarının fəaliyyət istiqamətlərini genişləndirərək, onların qarşısında yeni vəzifələr qoyur və məsuliyyətini əhəmiyyətli dərəcədə artırır. Ədliyyə sahəsində dövlət idarəçilik mexanizmlərinin müasirləşdirilməsi keyfiyyətcə yeni dəyişikliklərin həyata keçirilməsini, ədliyyə orqanlarının fəaliyyətinin şəffaflıq və aşkarlıq prinsipi əsasında qurulmasını, Ədliyyə Nazirliyinin işinin və strukturunun daha səmərəli şəkildə təşkil edilməsini, yeni regional və yerli qurumlarının yaradılmasını şərtləndirir. Azərbaycan Respublikası Prezidenti bunları nəzərə alaraq ədliyyə orqanlarının inkişafı məqsədilə 2006-cı il avqustun 17-də fərman imzalayıb.

2006-cı ildə əhalinin dövlət reyestrini aparmaq və dövlət reyestrini formalaşdırılmaq məqsədilə Əhalinin Dövlət Reyestri haqqında qanun qəbul edildi və müvafiq olaraq Ədliyyə Nazirliyi yanında Əhalinin Dövlət Reyestri Xidməti yaradıldı. Vətəndaşların ədliyyə orqanlarına müraciət etmə imkanlarının genişləndirilməsi, hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının, notariat və müvafiq sahələrdə göstərilən hüquqi xidmətlərin müasir tələblər səviyyəsində qurulması, penitensiar müəssisələrin və məhkəmə icraçılarının işinin, qanunyaradıcı fəaliyyətin təkmilləşdirilməsi, məhkəmə ekspertizalarının keyfiyyətinin artırılması, hüquqi maarifləndirmə və yeni texnologiyalar tətbiq edilməklə informasiya təminatının yaxşılaşdırılması, yüksək

peşəkar mütəxəssislərin hazırlanması, işçilərin fəaliyyətinin qiymətləndirilməsi, qəbulun şəffaf prosedurlarla həyata keçirilməsi və digər istiqamətlər üzrə ədliyyə orqanlarının inkişafını təmin etmək məqsədi ilə müvafiq tədbirlər həyata keçirildi.

Eyni zamanda, yüksək peşəkar kadr korpusunun formalaşdırılması, ədliyyə və prokurorluq orqanları, vəkillik fəaliyyəti üçün ixtisaslı kadrların hazırlanması, ali hüquq təhsili olmayan ədliyyə işçilərinin hüquqi hazırlığının təmin edilməsi, ədliyyə və prokurorluq orqanlarının, vəkilliyin inkişafı üçün konseptual problemlərin tədqiq edilməsi, hüquq elminin müxtəlif sahələri üzrə elmi araşdırmaların aparılması məqsədilə Ədliyyə Akademiyası yaradıldı.

Prokurorluğun strukturunun təkmilləşdirilməsi, onun fəaliyyətində beynəlxalq təcrübənin, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazasının və əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi məqsədilə prokurorluq orqanlarının fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün dövlət proqramı qəbul edildi. Prokurorluq orqanlarına qulluğa qəbul sahəsində də islahatlar davam etdirilir. Müsabiqə yolu ilə qulluğa qəbul başlandıqdan sonra prokurorluğun gənc əməkdaşlarının sayı artaraq, 41 faizə çatıb.

Daxili İşlər Nazirliyinin fəaliyyətində də irəliləyişlərə nail olundu. Cinayətlərin qeydiyyatında bir sıra nöqsanlar və çatışmazlıqlar aradan qaldırıldı, işə qəbul prosesi müsabiqəyə əsaslanan yeni şəffaf qaydalara uyğun aparılmağa başlanıldı. 2004-cü ildə qəbul edilən polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair dövlət proqramı çərçivəsində əhalinin təhlükəsizliyinin, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunması məqsədilə müasir informasiya - kommunikasiya texnologiyalarının tətbiqini nəzərdə tutan "Təhlükəsiz şəhər " sistemi layihəsi həyata keçirildi, "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin fəaliyyəti təkmilləşdirildi. Polis orqanlarının "Elektron sənəd dövriyyəsi" sisteminə qoşulması prosesi başa çatdırıldı.

Milli təhlükəsizliyin təmin edilməsi sahəsində də qanunvericilik bazası təkmilləşdirildi. 2004-cü ildə suveren, demokratik dövlət kimi Azərbaycanın inkişafını təmin etmək məqsədilə milli təhlükəsizlik siyasətinin hüquqi əsaslarını müəyyən edən, milli maraqlarının müdafiəsi ilə bağlı kəşfiyyat və əks-kəşfiyyət münasibətlərinin tənzimlənməsinə yönəlmiş qanunlar qəbul olundu. Azərbaycan Respublikasının Prezidenti 2007-ci ildə milli təhlükəsizlik prioritetlərini müəyyən edən milli təhlükəsizlik konsepsiyasını təsdiq etdi. Milli təhlükəsizlik orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair 2007-2011-ci illər üçün dövlət proqramı qəbul edildi.

2006-cı ildə qəbul olunmuş dövlət miqrasiya proqramında miqrasiya siyasətinin prioritet istiqamətləri müəyyən edilir. Proqramın icrası ilə bağlı bir sıra qanunvericilik, institusional və təşkilati tədbirlər görülüb. Miqrasiya sahəsində dövlət siyasətini həyata keçirən Dövlət Miqrasiya Xidməti yaradılıb. Miqrasiya idarəetmə mexanizminin təkmilləşdirilməsi, Azərbaycana gələn əcnəbilərə ölkə ərazisində qanuni əsaslarla yaşamaları və əmək fəaliyyəti ilə məşğul olmaları üçün müvafiq icazələrin verilməsi, onların yaşayış yeri üzrə qeydiyyata alınması prosedurunun sadələşdirilməsi, bu sahədə şəffaflığın təmin edilməsi məqsədi ilə 2009-cu il iyulun 1-dən miqrasiya proseslərinin idarəolunmasında "bir pəncərə" prinsipi tətbiq olunur. Miqrasiya sahəsində uçot və nəzarətin etibarlı təşkili məqsədilə vahid informasiya sistemi formalaşdırılıb.

Biometrik eyniləşdirmə sisteminin yaradılması üzrə 2007-2012-ci illər üçün dövlət proqramı təsdiq olunub. Bu proqram ənənəvi eyniləşdirmə üsulları ilə müqayisədə daha səmərəli olan biometrik eyniləşdirmə texnologiyalarının yaradılmasını, beynəlxalq standartlara uyğun yeni nəsil biometrik sənədlərin istehsalını və tətbiqini nəzərdə tutur. Dövlət proqramının həyata keçirilməsi milli təhlükəsizlik sisteminin təkmilləşdirilməsi, o cümlədən terrorçuluğa, qeyri-qanuni miqrasiyaya, insan alverinə və cinayətkarlığın doğurduğu digər təhdidlərə qarşı mübarizənin informasiya təminatının gücləndirilməsinə xidmət edir.

2010-cu ildə Azərbaycan Respublikasında yaşayan və müvəqqəti qalan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçotunun aparılması, miqrasiya proseslərinin idarə olunmasında iştirak edən dövlət orqanlarının zəruri informasiya ilə təmin edilməsi, miqrasiya ilə bağlı sənədləşmə, yoxlama, sorğu və təhlil işlərinin avtomatlaşdırılması və bu sahədə göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi məqsədi ilə Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi yaradılıb.

Bu il görüləcək işlər sırasında Miqrasiya Məcəlləsinin layihəsinin hazırlanması və qəbul edilməsi, biometrik eyniləşdirmə sistemi ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi, biometrik identifikasiya sisteminin tətbiqi üçün şəraitin yaradılması, biometrik pasportların hazırlanması və istehsalı ilə bağlı işlərin yekunlaşdırılması, mövcud informasiya sistemlərinin inkişaf etdirilməsi, vizalarla bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi kimi məsələləri qeyd etmək olar. 2011-ci il fevralın 15-də Azərbaycan Respublikasının Prezidenti vətəndaşların biometrik informasiya texnologiyaları əsasında yeni nəsil şəxsiyyət vəsiqəsinin istehsalı və tətbiqi ilə bağlı sərəncam imzalayıb.

İnsan hüquqları sahəsində də islahatlar davam etdirilir. Belə ki, normativ hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun, dövlət orqanlarının, insan hüquqlarının müdafiə mexanizmlərinin səmərəli fəaliyyətinin təmin edilməsi, hüquqi maarifləndirmə işinin genişləndirilməsi, dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi kimi vəzifələr müəyyən edilib. İnsan hüquqlarının müdafiəsi sahəsində görülən tədbirləri genişləndirilmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli sərəncamı ilə Milli Fəaliyyət Planı təsdiq edilib.

2009-cu il martın 18-də keçirilən referendum nəticəsində Konstitusiyaya edilən əlavə və dəyişikliklər hüquqi təminatları daha da gücləndirib. Konstitusiyanın 12-ci maddəsinə edilmiş əlavəyə görə dövlətin ali məqsədləri sırasına insan və vətəndaş hüquq azadlıqlarının təmin edilməsi ilə yanaşı, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi daxil edilib. Sosial dövlət quruculuğu konstitusion səviyyədə təsbit olunub. Seçki hüququ olan vətəndaşların qanunvericilik təşəbbüsü hüququ təsbit olunub. Hamının qanun qarşısında bərabərlik prinsipi bir daha təsdiqlənib. Şəxsi toxunulmazlıq hüququnun, əqidə və söz azadlığının səmərəli müdafiəsi ilə bağlı əlavə müddəalar daxil edilib. Ədalət mühakiməsi ilə bağlı bəzi normalara konstitusion status verilib.

Dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən proqram və layihələrin həyata keçirilməsində dövlət orqanları ilə qeyri-hökumət təşkilatlarının əməkdaşlığını təmin etmək üçün Azərbaycan Respublikasının Prezidenti qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi konsepsiyasını təsdiq edib. Konsepsiyaya əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası yaradılıb.

2010-cu ilin oktyabr ayında Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü ilə "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya qanununa dəyişikliklər və əlavələr edilməsi barədə Konstitusiya qanununun layihəsi Milli Məclisin müzakirəsinə təqdim edilib.

Layihəyə əsasən "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyanın Fakultativ Protokolunun icrasının təmin edilməsi məqsədilə müvəkkilin milli preventiv mexanizm qismində çıxış etməsinin Konstitusiya qanununda əks etdirilməsi və bu məqsədlə müvəkkil funksiyalarının gücləndirilməsi, milli preventiv qrupun yaradılması, onun üzvlərinin müəyyən toxunulmazlığa malik olması nəzərdə tutulur.

Azərbaycanın sosial-iqtisadi inkişaf tempinin qorunub saxlanılmasına və bu inkişafa mane olan amillərin aradan qaldırılmasına yönəlmiş korrupsiyaya qarşı mübarizə tədbirlərinin davam etdirilməsi məqsədilə 2007-ci ilin iyul ayında "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" qəbul edilib. Milli Strategiya dövlət idarəçiliyində şəffaflığın artırılmasını əsas vəzifə kimi müəyyən edir, vətəndaş cəmiyyəti institut ilə əməkdaşlığa və tərəfdaşlığa xüsusi önəm verir.

2009-cu il fevralın 23-də Azərbaycan Respublikasının Prezidenti "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə fərman imzalayıb və bu fərman əsasında Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti yaradılıb.

Korrupsiyaya qarşı mübarizə üzrə milli strategiyanın uğurla həyata keçirilməsi ardıcıl tədbirlərin görülməsini şərtləndirir. Milli strategiyanın davamı kimi 2011-ci il korrupsiyaya qarşı mübarizə sahəsində tədbirlərin gücləndirilməsi ilə başladı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Nazirlər Kabinetinin iclasında iqtisadiyyatın davamlı inkişafını təmin etmək məqsədilə qiymətlərin süni şəkildə qaldırılmasının qarşısının alınması, azad rəqabətin təmin edilməsi, inhisarçılıq meyillərinin, lazımsız yoxlamaların, xüsusilə, hüquq-mühafizə orqanları tərəfindən lazımsız yoxlamaların, vergidən yayınma hallarının aradan qaldırılması, biznes mühitinin yaxşılaşdırılması kimi vəzifələr qoydu.

Şəffaflığın təmin edilməsi və korrupsiyaya qarşı mübarizənin davamlı şəkildə aparılması Azərbaycan Respublikasının Prezidentinin siyasi iradəsidir və ölkəmizdə dinamik siyasi-iqtisadi inkişafın təmin edilməsi məqsədini daşıyır.

Dövlət rəhbərinin tapşırığına əsasən yanvarın 27-də Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin rəhbərliyi ilə Korrupsiyaya qarşı mübarizə komissiyasının iclası keçirildi və qaşıya qoyulmuş məsələlərlə bağlı bütün dövlət orqanlarına müvafiq göstərişlər verildi.

Görülən praktiki tədbirlərlə yanaşı, korrupsiyaya qarşı mübarizə və bürokratik əngəllərin, lazımsız yoxlamaların qarşısını almaq məqsədilə bir sıra vacib sənədlər qəbul olundu. Azərbaycan Respublikasının Prezidenti 2011-ci ilin fevralında Daxili İşlər Nazirliyinin yol patrul xidməti əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi və yol hərəkətinin tənzimlənməsi sahəsində bəzi tədbirlər haqqında və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə fərmanlar imzaladı.

Beləliklə, hüquq sisteminin müasirləşməsi mərhələsi bölgələrdə hüquq infrastrukturunun genişləndirilməsi, Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi və təcrübədə tətbiqi, insan hüquqlarının müdafiəsi və hüquqi maarifləndirmə sahəsində dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, hüquqşünasların peşə səviyyəsinin yüksəldilməsi, hüquq-mühafizə orqanlarının maddi-texniki bazasının gücləndirilməsi işçilərin maddi təminatlarının yaxşılaşdırılması və sair kimi məsələlərinin həllini müəyyən edir.

**Göründüyü kimi, hüquqi islahatlar ardıcıl bir prosesdir. Bu həm qanunvericilik, həm də qanunvericiliyin praktiki tətbiqi sahəsində daimi təkmilləşdirmə işlərində öz əksini tapır. Əminliklə deyə bilərik ki, Azərbaycan Respublikası Prezidentinin hüquq sisteminin müasirləşdirilməsi konsepsiyası çərçivəsində həyata keçirilən islahatlar ədalət mühakiməsini keyfiyyətcə yeni səviyyəyə qaldıracaq, hüquq sisteminin davamlı müasirləşməsini təmin edəcək.**

“**Azərbaycan**”.-2011.-29 aprel.-N 91.-S.5.

# SOSİAL SABİTLİKDƏN SOSİAL RİFAHA

**Hadi RƏCƏBLİ,**
Milli Məclisin Sosial siyasət komitəsinin sədri

**"Bizim düşünülmüş siyasətimiz, iqtisadi potensialımız, güclü sosial siyasətimiz vardır. Bütün siyasətimizin başında Azərbaycan vətəndaşı dayanır."**

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti.***

## Sosial siyasətin tarixi və nəzəri aspektləri

"Sosial siyasət" termininin yaranma tarixi çox da qədim deyil. Bununla belə, bəşər tarixi boyunca cəmiyyətin bütün inkişaf mərhələlərində, formasiyalarında sosial müdafiə və sosial ədalətin bu və ya digər formaları işlənib hazırlanmış və dövlət quruculuğunda onun hər dövrə uyğun modelləri mövcud olmuşdur. Bu modellərin təməlində əxlaq və dinin formalaşdırdığı, adət-ənənələrlə təsbitlənmiş təsəvvür və anlayışlar dururdu.

Vətəndaş-cəmiyyət, cəmiyyət-hakimiyyət münasibətlərin müxtəlif dövrlərdə formasını dəyişsə də, məzmun etibarı ilə insanların həyat şəraitinin yaxşılaşmasına yönəlmişdir. Hələ eramızdan əvvəl müxtəlif elm məktəblərinin nümayəndələri təsdiq edirdilər ki, dövlətin son məqsədi - öz vətəndaşlarının qayğısına qalmaqdır.

Başqa sözlə, qədim insanlar da sosial və iqtisadi sahələr arasındakı sərt bağlantını görürdülər. Aristotel yazırdı ki, "dövlət sadəcə yaşamaq üçün deyil, firəvan yaşamaq üçün yaradılır."

Yeni dövrün - XVIII, XIX əsrlərin mütəfəkkirləri T.Qobbs, İ.Kant, Hegel və digərləri ədaləti danılmaz sosial və əxlaqi dəyər hesab edərək, dövlətin vətəndaşları qarşısında götürdükləri öhdəliklərin ən önəmlisi hesab etmişlər.

Sosial siyasətin dövlətin və cəmiyyətin spesifik funksiyası kimi izahı və öyrənilməsi sosial dövlətin əsaslarının təməli qoyulan dövrə təsadüf edir. Bu kimi sosial instituta elmi maraq XIX və XX əsrlərin astanasında formalaşıb.

Sonrakı onilliklərdə sosial siyasət anlayışı "sosial dövlət" haqqındakı anlayışlarla birbaşa bağlı kontekstdə öyrənilir.

"Sosial dövlət" anlayışının daha çox İsveçrə, Almaniya, Danimarka kimi ölkələrə aid edilməsinə baxmayaraq, birmənalı demək olar ki, hər bir müasir dövlət özündə sosial dövlətin bu və ya digər xüsusiyyətlərini daşıyır. Hətta, sosial-iqtisadi liberalizmin dərin köklərə malik olduğu ABŞ-da belə məqsədyönlü sosial siyasət həyata keçirilir.

"Sosial dövlət" prinsipi bu və ya digər formada Fransanın, İtaliyanın, Portuqaliyanın, Türkiyənin, İspaniyanın, Yunanıstanın, Hollandiyanın, Danimarkanın, İsveçin və digər ölkələrin konstitusiyalarında artıq özünün hüquqi əksini tapmışdır.

Müstəqillik əldə etdikdən sonra, XX əsrin 90-cı illərində bazar iqtisadiyyatına keçid və keyfiyyətcə yeni iqtisadi münasibətlərin yaranması şəraitində, Azərbaycanda da sosial dövlətin qurulması, sosial siyasətin inkişafı, sosial müdafiə sistemində zəruri islahatların aparılmasına böyük ehtiyac duyulurdu. Müasir dövrün tələblərinə cavab verən çevik, işlək mexanizmləri təmin edən sosial təminatlar sisteminin yaradılması 1993-cü ildə hakimiyyətə qayıdan, ölkədə sabitlik yaradan və ölkəni sosial-iqtisadi inkişafa aparan ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

## Azərbaycanda sosial müdafiə sistemi

Ümummilli lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra ölkəni tənəzzüldən çıxarmaq üçün bir sıra cəsarətli və ardıcıl addımlar atdı. Bu siyasətin mərkəzində əhalinin sosial güzəranını yaxşılaşdırmaq, yoxsulluğun səviyyəsini azaltmaq, sığorta-pensiya sisteminin modernləşməsi, bir sözlə, sosial siyasətin transformasiyası dururdu.

Sevindirici haldır ki, ulu öndər Heydər Əliyev dühasının demokratik cəmiyyət və liberal iqtisadiyyat qurmaq istiqamətində məharətlə apardığı uzunmüddətli siyasət bu gün özünün müsbət nəticələrini verir və həyatın bütün sahələrində uğurlar qazanır.

Ulu öndər Heydər Əliyevin səyləri və dünya ölkələrinin qabaqcıl təcrübəsindən istifadə edilməsi sayəsində ölkədə strukturlaşmış, ayrı-ayrı əlaqədar sahələri özündə birləşdirən sosial müdafiə sistemi yaranmağa başladı.

Eyni zamanda, sosial siyasətin prioritet sahələri müəyyən olundu və problemlərlə birbaşa məşğul olan yeni dövlət qurumları yarandı.

Heydər Əliyevin 26 iyul 1994-cü il tarixli fərmanı ilə yaradılmış Gənclər və İdman Nazirliyinin və 14 yanvar 1998-ci il tarixli fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılmasını buna misal göstərmək olar. Hər iki sosial müdafiə strukturunun vacibliyi nəzərə alınaraq sonradan möhtərəm Prezident İlham Əliyev hər iki dövlət qurumunun idarəedilməsində əsaslı dəyişikliklər aparmışdır.

Bütövlükdə, sosial müdafiə sisteminin müasir idarəetmə strukturu özündə bir neçə baş istiqamətləri ehtiva edir. Bunun birincisi sosial müdafiədə qabaqlayıcı, yarana biləcək problemlərin qarşısının alınması tədbirləri, ikincisi, sosial reabilitasiya, cəmiyyətə adaptasiya, sağlamlığın bərpası, əməyə qaytarma istiqamətli tədbirlər, üçüncüsü isə ünvanlı sosial müdafiədir.

Sosial müdafiə sisteminin Heydər Əliyev uzaqgörənliyi ilə aparılan transformasiya proseslərində ən vacib məsələ insanların uşaqlıqdan qocalığadək sağlamlığının qorunması və bərpası məsələləri önə çəkilirdi. Hələ müstəqilliyin ilk illərində ölkədə yüzlərlə sosial problemin mövcud olduğu dövrdə ulu öndər idman məsələlərinə, bədən tərbiyəsinin kütləviliyinə xüsusi diqqət yetirirdi.

"İdman hər bir insanın sağlamlığıdır. Ona görə də biz idmana çox böyük yol açmışıq. Gənclər gərək fiziki cəhətdən sağlam olsunlar" deyən ulu öndər Heydər Əliyev 1993-cü ildən başlayaraq bu sahəyə dövlət tərəfindən ən yüksək səviyyədə diqqət və qayğı göstərilməsini təmin etdi.

Möhtərəm Prezident cənab İlham Əliyev 1997-ci ildə Azərbaycan Olimpiya hərəkatına rəhbərlik etməyə başladı, dövlətin idman siyasətinə yeni istiqamətlər gətirdi, idmanın populyarlığına yeni vüsət verdi, idman vasitəsilə Azərbaycanın dünya və Avropaya inteqrasiyası, beynəlxalq idman aləmində ölkənin nüfuzunun daha da artırılması məsələlərini dövlət siyasətinin vacib istiqamətlərindən biri kimi dəyərləndirdi.

Ölkənin paytaxtında, şəhər və rayonlarda ən müasir avadanlıqlarla təchiz olunmuş otuzadək idman kompleksi tikilib istifadəyə verildi. İdmançılarımız Olimpiya oyunlarında, dünya miqyaslı yarışlarda yüksək nəticələr göstərdilər.

Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafı üzrə uzun müddətə nəzərdə tutulmuş Milli Strategiyanın qəbul olunması günün tələbi və zərurəti idi. Milli strategiyanın əsas məqsədi fiziki, əqli və maddi imkanlarından asılı olmayaraq ölkədə əhalinin bütün təbəqələri üçün öz bilik və bacarıqlarını reallaşdıra bilmələrinə, hərtərəfli uğurlu inkişafa nail olmalarına şərait və imkanlar yaratmaqdan ibarət idi.

Eyni zamanda, strategiyanın məqsədi insan haqları, həmçinin idmana dair beynəlxalq və milli qanunvericiliyi, cəmiyyətin bütün təbəqələrinin, qabaqcıl dünya təcrübəsini nəzərə alaraq, hərtərəfli inkişafına, demokratik ölkə quruculuğuna, Azərbaycanın dünyaya və Avropaya inteqrasiyasının sürətləndirilməsinə, həmçinin onun beynəlxalq nüfuzunun yüksəldilməsinə xidmət etmək idi.

Bədən tərbiyəsi və idmanın idarə edilməsinin əsas istiqamətləri və təşkilati strukturu "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu və respublika Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Bədən tərbiyəsi və idmanın inkişafının dövlət Proqramı" ilə müəyyən edilmişdir.

Müşahidələr də göstərir ki, uşaq və yeniyetmələrin zərərli vərdişlərdən çəkindirilməsində, onların asudə vaxtının düzgün təşkil edilməsində, xəstəliklərin qarşısının alınmasında bədən tərbiyəsi və idman məşğələlərinin rolu əvəzsizdir.

Həyata keçirilən tədbirlər ildən-ilə artır. 207 uşaq-gənclər idman məktəbi fəaliyyət göstərməkdədir. Gələcəkdə uşaq və yeniyetmələrlə aparılan işin fəaliyyət dairəsinin daha da genişləndirilməsi, o cümlədən, uşaq idmanının normativ-hüquqi bazasının təkmilləşdirilməsinə ehtiyac var.

Azərbaycanda sosial müdafiə sisteminin ikinci ən önəmli istiqamətlərindən biri də ailə, qadın və uşaq problemləridir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradıldıqdan sonra dövlətimizin "sağlam ailə" siyasəti formalaşdı, sahənin normativ-hüquqi bazası möhkəmləndirildi, ayrı-ayrı kateqoriyalara aid olan ailələrin vəziyyətinə təsir göstərən hallar təhlil edildi, vahid informasiya sistemi yaradıldı.

"Azərbaycan Respublikasında Dövlət Qadın siyasətinin həyata keçirilməsi haqqında" Heydər Əliyevin 6 mart 2000-ci il tarixli fərmanı gender siyasətinin təbliğinə, qadınların ictimai və siyasi həyatda fəal iştirakına, qaçqın və məcburi köçkün qadınların məşğulluğuna nə qədər önəm verdiyini bir daha təsdiq etdi. Bunun məntiqi davamı olaraq 10 oktyabr 2006-cı ildə cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində gender bərabərliyini təmin etmək məqsədilə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi.

Dövlətin daim diqqət mərkəzində saxladığı məsələlərdən biri də cəmiyyətin həssas təbəqəsinin nümayəndələrinə aid edilən uşaqların sosial müdafiəsidir. Hər bir xalqın, dövlətin ən böyük və qiymətli sərvəti

uşaqlardır. Uşağı sağlam, cəmiyyətə faydalı vətəndaş kimi böyütmək çətin və məsuliyyətli, mənəvi qüvvə tələb edən işdir.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il mayın 19-da "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, 2009-cu il "Uşaq ili" elan edilmiş, "SOS Kinderdorf İnternəşnl" təşkilatı ilə respublika hökuməti arasında əldə olunmuş razılaşmaya əsasən "Bakı SOS uşaq kəndi" salınmışdır. Burada Avropa standartlarına uyğun 12 ailə evi, uşaq bağçası və altı digər yardımçı bina fəaliyyət göstərir. Ailə evlərinin hər birində 8-10, ümumilikdə isə kənddə 100-dən artıq uşağın yaşaması üçün hər çür şərait yaradılmışdır.

Uşaqların sosial müdafiəsinə yönəlmiş ən önəmli dövlət proqramlarından biri Azərbaycan Respublikası Prezidentinin 29 mart 2006-cı il tarixli sərəncamı ilə qəbul olunmuş "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər)" dır.

Proqramın əsas məqsədi BMT-nin "Uşaq hüquqlarına dair" Konvensiyasında təsbit olunmuş uşağın şəxsiyyətinin tam və ahəngdar inkişafı üçün onun ailə mühitində xoşbəxt, məhəbbət və anlaşma şəraitində böyüməsinin zəruriliyi nəzərə alınaraq dövlət uşaq müəssisələrində olan uşaqların ailələrə verilməsi və alternativ qayğının təşkili mexanizmlərinin yaradılması və səmərəli işləməsini təmin etməkdir.

Hazırda respublikanın təlim-tərbiyə müəssisələrində 21000 nəfərə yaxın uşaq var. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində uşaqların valideynlərini itirməsi, qaçqın və məcburi köçkün ailələrinin maddi vəziyyətinin aşağı olması və digər sosial amillər dövlət uşaq müəssisələrində uşaqların sayının artması ilə nəticələnmişdi.

Bu müəssisələrdə saxlanılan uşaqlar Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq dövlət qayğısı ilə əhatə olunmuşdur. BMT-nin "Uşaq hüquqlarına dair" Konvensiyanın tələblərinə əsasən dövlət müəssisələrindən uşaqların bioloji və ya digər alternativ ailələrə verilməsi, onların hüquqlarının qorunması daim diqqət mərkəzində saxlanmalı, uşaqları qəbul edən ailələrə sosial yardım edilməlidir.

Respublikada iqtisadiyyatın sürətli inkişafı, sosial sahələrə diqqətin artırılması, regionların inkişafı məqsədilə həyata keçirilən tədbirlər nəticəsində yeni iş yerlərinin açılması, adambaşına düşən gəlirin ilbəil artması, əhalinin, o cümlədən hər bir ailənin maddi durumunun yaxşılaşması üçün zəmin yaratmışdır. Bu da uşaqların bu müəssisələrə düşməsinin qarşısının alınmasına, habelə müəssisələrdə uşaqların sayının azalmasına, onların ailələrə verilməsinə geniş imkanlar yaradır.

Azərbaycanın modern dövlət quruculuğunda sosial siyasətin növbəti önəmli istiqamətlərindən biri də əlillərin sosial müdafiəsidir.

Əlil və sağlamlıq imkanları məhdud şəxslərin hüquqlarının qorunması, onların cəmiyyətə inteqrasiyası və sosial durumunun yaxşılaşdırılması məqsədilə 1994-cü ildə "Azərbaycan Respublikasında əlillərin problemləri üzrə kompleks Proqram" və "1999-2002-ci illər üçün "Əlilliyin qarşısının alınması, sosial müdafiəsi və reabilitasiyası üzrə Dövlət Proqramı" təsdiq edilmişdir.

Hələ 1995-ci ilin yanvar ayında respublika Əlilləri Sosial Müdafiə Fondu və onun rayonlarda şöbələri yaradılmışdır. Nazirlər Kabinetinin 19 fevral 2002-ci il tarixli qərarı ilə Fondun bazasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Əlillərin Sosial Müdafiəsi Baş İdarəsi və zona şöbələri fəaliyyətə başlamışdır. Adıçəkilən şöbələr müxtəlif kateqoriyalı əlillərə xidmət göstərərək, pensiya təminatı xidməti istisna olmaqla, əlillərin reabilitasiyasının təşkili, mənzil-məişət məsələləri, əmək hüquqlarının qorunması, bu qrupun ictimai təşkilatlarının koordinasiyası və digər məsələlərlə birbaşa məşğul olurlar. Əlillərin pulsuz avtomobil və ortopedik avadanlıqlarla təmin olunması, fiziki cəhətdən qüsurlu insanların cəmiyyətə inteqrasiyasının təmin edilməsi, əlillərin istedad və qabiliyyətlərinin üzə çıxarılması, onların yaradıcılıq imkanlarının genişləndirilməsi də bu idarə və şöbələrin fəaliyyətlərinin tərkib hissəsidir.

"Əlillərin hüquqları haqqında" Beynəlxalq Konvensiyaya qoşulmaq barəsində Azərbaycan Respublikasının qanunu və aparılan genişmiqyaslı sosial islahatların nəticəsi olaraq bu qrupdan olan bütün insanların sosial müdafiəsi sahəsində önəmli dəyişikliklərə səbəb olmuşdur.

Cəmiyyətin həssas, xüsusi qayğıya ehtiyacı olan təbəqələrindən söz düşmüşkən, qaçqın və məcburi köçkünlər problemindən yan keçmək düzgün olmazdı.

Ulu öndər Heydər Əliyevin daim diqqət mərkəzində qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması məsələsi olduğundan, çadır düşərgələrinin ləğvi ideyası da ona məxsus idi.

Prezident İlham Əliyev də qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi məsələsini daim diqqətdə saxlayır. Qaçqınların və məcburi köçkünlərin sosial təminatı ilə bağlı hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə son 5 ildə Milli Məclis tərəfindən bir qanun, Azərbaycan Respublikasının Prezidenti tərəfindən 18 fərman və sərəncam imzalanmış, onların icrası ilə əlaqədar Nazirlər Kabinetinin 64 qərar və sərəncamı qəbul edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli sərəncamı ilə "Qaçqınların və

məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" və 2007-ci il 31 oktyabr tarixli sərəncamı ilə həmin Dövlət Proqramına "Əlavələr" təsdiq edilmişdir.

Möhtərəm Prezident İlham Əliyevin 21 fevral 2011-ci il tarixli "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na əlavələr edilməsi haqqında sərəncamı bu sahədə sosial müdafiənin yeni mərhələsindən xəbər verir.

Son bir neçə ildə 10401 ailə, başqa sözlə, 47 min nəfər məcburi köçkün üçün 36 qəsəbə salınmışdır. 534 min kvadratmetr yaşayış sahəsinə malik həmin qəsəbələrdə həmçinin 34 məktəb, 4 musiqi məktəbi, 18 uşaq bağçası, 26 tibb müəssisəsi, 21 rabitə evi, 22 klub - icma mərkəzi, 29 inzibati bina, 5 yanğın postu tikilib istifadəyə verilmiş, 366 kilometr yol, 438 kilometr su, 583 kilometr elektrik xətti çəkilmiş, 141 artezian quyusu qazılmış, müxtəlif həcmə malik 48 su anbarı, 20 nasos stansiyası inşa edilmiş, 349 transformator stansiyası quraşdırılmış, 2650 hektar sahədə minadan təmizləmə işləri aparılmışdır.

### Sosial siyasətdə ardıcıllıq

Azərbaycanda əhalinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunlar, ölkə Prezidentinin imzaladığı fərman və sərəncamlar, görülən digər konkret tədbirlər insanların maddi rifah halının yüksələn xətt üzrə inkişafında önəmli rol oynayır. Bununla belə, sosial sahədə əhalinin müdafiəsinin daha da güclənməsinə xidmət edən siyasət ardıcıl olaraq davam etdirilir, zamanın tələblərinə uyğun olaraq daim yeniləşir.

Belə ki, son 10 ildə ölkəmizdə sosial sığorta sistemində fərdi uçot prinsipi daha da inkişaf etdirilmiş, çoxlu avtomatlaşdırılmış iş yerləri yaradılmış, idarəetmə xeyli təkmilləşmiş və asanlaşmışdır. Pensiyaların baza hissəsi bu müddətdə ayrı-ayrı vaxtlarda artırılaraq 85 manata çatdırılmışdır.

Pensiyaların sığorta hissəsi mövcud inflyasiyaya uyğun olaraq hər il indeksləşdirilmiş, ən önəmlisi isə pensiya sığorta sistemi ilə müavinət sistemi demək olar ki, bir-birindən tam ayrılmışdır.

Azərbaycanda vahid əmək pensiyası sistemi yaradılmış, hərbi qulluqçuların, polis əməkdaşlarının, dövlət məmurlarının və digər sosial stratların əmək pensiyaları bir yerdə ehtiva olunmuşdur. Ən başlıcası isə, pensiyaların hesablanması və digər maliyyə əməliyyatları vahid metodoloji yanaşma ilə öz həllini tapmağa başlamışdır.

Əhalinin sosial müdafiəsinin, xüsusən də aztəminatlı təbəqənin maddi təminatının yaxşılaşdırılması üçün yaşa görə əmək pensiyalarının baza hissəsi, minimum əməkhaqqı, 15 min şəhid ailəsi, 20 Yanvar şəhidlərinin ailələri üçün xərclər artırılmışdır. Böyük Vətən müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına birdəfəlik müavinətin ödənilməsi məqsədi ilə ölkə Prezidentinin Ehtiyat Fondundan demək olar ki, hər il 3,5 milyon manat vəsait ayrılır. Bütövlükdə, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamları ilə əhalinin sosial güzəranının yaxşılaşdırılması sahəsində həyata keçirilən bu tədbirlər 2 milyon nəfərdən artıq insana şamil edilmişdir.

2009-cu ilə nisbətən 2010-cu ildə dövlət büdcəsindən səhiyyə, sosial müdafiə və sosial təminat xərclərinə 11,6 faizdən çox vəsait yönəldilmişdir. Son 8 ildə bu siyasət daha yüksək keyfiyyətlə və geniş miqyasda aparılmaqda davam etdirilir. Möhtərəm Prezident İlham Əliyev hakimiyyətin bütün qolları qarşısında ən ümdə vəzifə olaraq dinamik iqtisadi inkişafın sosial həyatda, insanların güzəranında özünü göstərməsini tələb edir.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı" yeni Dövlət Proqramı (2009-2013-cü illər) əhalinin rifah halının yaxşılaşdırılmasına, yoxsulluq həddinin tamamilə azaldılmasına, sosial infrastrukturun çevikliyinin təmin olunmasına, yeni iş yerlərinin açılmasına, məşğulluğun artırılmasına, sahibkarlıq fəaliyyətinin genişlənməsinə gətirib çıxaran və ölkə iqtisadiyyatının hərtərəfli inkişafına öz töhfəsini verən əhəmiyyətli bir sənəddir.

Proqramın icrası başqa sahələrdə olduğu kimi, səhiyyə-sağlamlıq strukturunda da özünü bariz şəkildə göstərəcəkdir. Təkcə onu göstərmək kifayətdir ki, 2003-cü ildə dövlət büdcəsindən səhiyyə sahəsinə ayrılan vəsait 55,3 milyon manat idisə, 2013-cü ilə qədər bu vəsaitin 600 milyon manata çatdırılması nəzərdə tutulur. İndiyədək 43 yeni xəstəxana və müalicə-diaqnostika mərkəzi istifadəyə verilmişdir. Tikintisinə 96 milyon manat vəsait sərf olunan sağlamlıq ocaqlarının 13-ü regional diaqnostika və sağlamlıq mərkəzləridir.

Hüquqi bazanın daim təkmilləşməsi, onun reallıqlara, maliyyə imkanlarına uyğun yeniləşməsi qanun yaradıcıları qarşısında da yeni vəzifələr qoyur və fəaliyyətlərində ardıcıllıq tələb edir. Belə ki, Əmək Məcəlləsinə, Ailə Məcəlləsinə, "Əmək pensiyaları haqqında", "Sosial sığorta haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Həmkarlar ittifaqları haqqında", "İnformasiya əldə etmək haqqında", "Onkoloji yardım haqqında", "Sosial müavinətlər haqqında", "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "Dərman vasitələri haqqında", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Şəhərsalmanın

əsasları haqqında" və sair qanunlara günümüzün reallığından irəli gələn çoxsaylı dəyişikliklər və əlavələr edilmişdir.

Ardıcıl aparılan bütün işlərə baxmayaraq sosial qanunvericilikdə və icra strukturlarının apardığı işlərdə bəzi boşluqlar və uyğunsuzluqlar hələ də mövcuddur. Belə misallardan birinə diqqəti cəlb etməyi məqsədəmüvafiq hesab edirəm. Bu günə qədər eyni iş sahələrində çalışan və göstəriciləri fərqli olmayan 90-cı illər ərzində və 2005-ci illin sonuna qədər pensiyaya çıxmış vətəndaşlarla 2006-cı ildən sonra pensiyaya çıxanların aldıqları ödəmələr arasında qeyri-mütənasiblik mövcuddur. Dövlətimizin iqtisadi qüdrəti, maliyyə imkanları artdıqca, sosial sahədə maliyyə tutumlu islahatların aparılması davam etdikcə bu problemlər qısa müddətdə öz müsbət həllini tapacaqdır.

**Modernləşən dövlətin bəzi təməl sosial prioritetləri**

Cənab İlham Əliyevin dövlət quruculuğu modernləşən və bir çox özəlliklərinə görə fərqli dövlət quruculuğu modelidir. Bu modeldə əsas istiqamət nəticəyə deyil, səbəbin aradan qaldırılmasına yönəlir. Əhalinin sağlamlığının qorunması, həm birbaşa, həm də dolayı vasitələrlə sosial müdafiənin gücləndirilməsi, yoxsulluğun tamamilə aradan qaldırılması, bu məqsədlə kiçik sahibkarlığa geniş vüsət verilməsi fəaliyyət prioritetlərindəndir.

Bu məqsədlə respublikanın səhiyyə sistemində bir çox istiqamətlər üzrə islahatlar aparılır, infrastruktur təkmilləşir, sahəyə irihəcmli investisiyalar yönəldilir, genişmiqyaslı işlər görülür. 2006-cı ilin sentyabrında İctimai Səhiyyə və İslahatlar Mərkəzinin yaradılması barədə qərar səhiyyə sistemində islahatların aparılmasında irəliyə doğru atılmış uğurlu bir addım oldu.

İctimai səhiyyə dedikdə, profilaktik, klinik xidmətlər, tibb müəssisələrinin fəaliyyətinə nəzarətlə yanaşı, milli səhiyyə sisteminin təkmilləşməsi, ətraf mühitin mühafizəsi, sağlam həyat tərzinin təbliği, bu sahədə strategiyanın, səhiyyə proqramlarının hazırlanması, tibbi xidmətlərdə sosial bərabərliyin təminatı, səhiyyə siyasəti, iqtisadiyyatı və s. kimi daha geniş aspektlər nəzərdə tutulur.

Əhalinin sağlamlığının qorunması, eyni zamanda, dolayı sosial müdafiə tədbirləri ilə də gücləndirilə bilər. Ekologiyanın - havanın, suyun təmizlənməsini, yeni yolların, körpülərin, məktəb binalarının salınmasını və bütövlükdə infrasturkturun yaxşılaşmasını bu qəbildən olan işlərə aid etmək olar.

Bununla bağlı möhtərəm Prezident İlham Əliyev deyib: "Biz havanı təmizləməliyik. İçməli su keyfiyyətli olmalıdır ki, Azərbaycan vətəndaşları sağlam olsunlar. İdmanla məşğul olmaq - bu da sağlamlıqdır. Yeni xəstəxanaların, diaqnostika komplekslərinin tikintisi - bu da sağlamlığı qoruyan amillərdir." Bax modernləşən dövlətin sosial prioriteti məhz sağlamlıqdan, insan amilindən onu rifaha aparan bu magistral yoldan keçir.

Bu çağırışa cavab olaraq Milli Məclisdə həmin məsələləri tənzimləyən "Sosial xidmət haqqında", "Reproduktiv sağlamlıq haqqında", "Pasiyentin hüquqları haqqında" və digər yeni qanunlar ətrafında iş aparılır.

Ümumən modern dövlət quruculuğuna xidmət edən modern sosial siyasətin uğurla həyata keçirilməsi nəticəsində ölkəmizdə sosial sabitlik, əmin-amanlıq bərqərar olub və uzunmüddətli islahatların icrası inamla davam etdirilir.

İşsizliyin tamamilə aradan qaldırılması, layiqli həyat standartlarının yaradılması, yoxsulluğun sıfır həddinə endirilməsi, etibarlı sosial müdafiə, gənc ailələrə dövlət qayğısı və müasirləşmə cəmiyyətimizi gələcəkdə gözləyən yeni inkişaf mərhələsinə - sosial rifaha aparır.

“**Azərbaycan**”.-2011.-30 aprel.-N 92.-S.3.

# HEYDƏR ƏLİYEVİN GEOSİYASİ TƏLİMİ: XXI ƏSRDƏ AZƏRBAYCANIN ƏSAS GEOSİYASİ VƏZİFƏLƏRİ VƏ PERSPEKTİVLƏRİ

**Əli HƏSƏNOV,**
tarix elmləri doktoru, professor

**Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə dövlətin sükanı arxasına keçməsi ilə ciddi xarici geosiyasi müdaxilələrə, kəskin daxili ictimai-siyasi, iqtisadi və mənəvi böhrana, günü-gündən güclənən milli-vətəndaş qarşıdurması və s. neqativ hadisələrə baxmayaraq, müstəqil Azərbaycanın milli dövlətçiliyini qoruyub saxlamaq mümkün oldu. 1993-1996-cı illərdə respublikada milli-vətəndaş qarşıdurmasının dayandırılması, ictimai-siyasi sabitliyin bərpa edilməsi, həyata keçirilən ardıcıl daxili, xarici, milli dövlət quruculuğu və sosial-iqtisadi siyasət, 1994-cü ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində müvəqqəti atəşkəsə nail olunması və s. proseslər Azərbaycan Prezidentinə öz xalqının gələcəyi ilə bağlı həyati əhəmiyyət kəsb edən strateji layihələri həyata keçirməyə imkan yaratdı.**

Qısa zaman kəsiyində ölkənin həm daxili həyatında bazar iqtisadiyyatı mexanizmlərinin yaradılması, dövlət mülkiyyətinin özəlləşdirilməsi və biznes mühitinin liberallaşdırılması, həm də beynəlxalq aləmlə hərtərəfli işgüzar münasibətlərin qurulması, respublika iqtisadiyyatına hava-su kimi lazım olan xarici investisiya və texnologiyaların cəlb edilməsi, Xəzər dənizinin milli sektorundakı neft-qaz yataqlarının birgə istismarı, inkişaf etmiş Qərb dövlətləri və onları təmsil edən şirkətlərlə Azərbaycanın bərabərhüquqlu, qarşılıqlı-faydalı, müştərək tərəfdaşlıq əlaqələrinin yaradılması və s. milli geosiyasi vəzifələrin həyata keçirilməsinin müvəffəqiyyətli sonluğunu şərtləndirdi.

1994-cü ildə dünyanın aparıcı neft şirkətləri ilə Xəzər dənizinin karbohidrogen yataqlarının mənimsənilməsi və hasil olunan neftin alternativ yollarla dünya bazarlarına ixracı sahəsində "Əsrin müqaviləsi" adlanan çoxtərəfli sazişin imzalanması isə tezliklə planetin əsas fövqəlgüclərinin, aparıcı maliyyə və iqtisadi institutlarının, beynəlxalq transmilli təşkilatların diqqətini Azərbaycana yönəldərək, onlarla qarşılıqlı-səmərəli əməkdaşlıq şəraiti yaratdı.

1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi, çoxpartiyalı seçki nəticəsində yeni parlamentin formalaşdırılması, daxili siyasətdə demokratiya və bazar iqtisadiyyatı prinsiplərinə söykənən modernləşmə kursunun seçilməsi və digər addımlar yaxın və uzaq perspektivdə Azərbaycanın qarşısında duran milli vəzifələri, iqtisadi, siyasi, sosial-mənəvi inkişaf prioritetlərini müəyyənləşdirdi.

Azərbaycanın yeni iqtisadi inkişaf kursu, xarici iqtisadi əlaqələri və neft strategiyası 1996-cı ildən başlayaraq tədricən öz müsbət nəticələrini verərək, ölkəyə dünya iqtisadiyyatına və siyasətinə inteqrasiya istiqamətində ciddi addımlar atmağa imkan yaratdı. Xüsusən "Əsrin müqaviləsi"nin imzalanması bir dövlət olaraq Azərbaycanın dünyada və regionda geosiyasi və geoiqtisadi əhəmiyyətini artırdı, onu bölgədə və dünyada arzuolunan iqtisadi tərəfdaşa çevirdi. Mövcud şəraitdən bəhrələnən hakimiyyət ölkə daxilində dinamik sosial-iqtisadi, siyasi və mədəni inkişaf kursu götürdü ki, bu da geosiyasi anlamda Azərbaycanın regional və beynəlxalq əhəmiyyətini, geoiqtisadi dəyərini yüksəltdi, regional dövlət olaraq perspektivlərini artırdı. O vaxta qədər Cənubi Qafqaz və Xəzər hövzəsinin ən problemli, daxili münaqişələrin, etnik-milli, sosial və dini qarşıdurmaların tüğyan etdiyi Azərbaycan, tezliklə regionda geosiyasi və geoiqtisadi cəhətdən ən əhəmiyyətli bir ölkəyə, arzu olunan iqtisadi tərəfdaşa və ciddi persrektivlər vəd edən dövlətə çevrildi. Digər iki Cənubi Qafqaz respublikası - Gürcüstan və Ermənistandan fərqli olaraq, böyük iqtisadi, əmək resursları və insan potensialına, zəngin enerji mənbələrinə, əlverişli coğrafi mövqeyə və ən əsası, tam müstəqil, balanslı, təkmil daxili və xarici siyasət kursuna, aydın geostrateji, geoiqtisadi mövqeyə malik olması - Azərbaycana regionun vahid liderinə çevrilməsi imkanı yaratdı.

Əlbəttə, bütün bu keyfiyyətlərin qazanılması Azərbaycan dövlətinə və onu idarə edənlərə heç də asan və rahat başa gəlməmişdir. Ulu öndər Heydər Əliyevin nümayiş etdirdiyi böyük iradə, ortaya qoyduğu ciddi zəhmət və düşünülmüş siyasət olmasaydı, yəqin ki, dünya ekspertləri bu ölkə haqqında hazırda tamamilə fərqli fikirdə olacaqdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqillik əldə edildikdən sonra Azərbaycanın keçdiyi geosiyasi inkişaf yolunu xarakterizə edərək söyləmişdir ki, 1993-cü ildən sonrakı dövrdə Azərbaycanının milli dövlətçiliyi qorunub saxlandı və yenidən quruldu, onun inkişaf strategiyası müəyyənləşdi, ölkəmiz özünü bütün dünyaya perspektivli və etibarlı tərəfdaş, ləyaqətli dövlət kimi təqdim edə bildi.

Müstəqillik illərində Azərbaycanın təşəbbüsü ilə Cənubi Qafqazda reallaşdırılan transmilli enerji, nəqliyyat-kommunikasiya və dəhliz layihələrinin işə düşməsi faktiki olaraq ölkəmizi Xəzər-Qara dəniz hövzəsinin və Cənubi Qafqazın lider dövlətinə çevirdi. Bəzi nüfuzlu Qərb tədqiqatçılarının fikri ilə ifadə etsək: "Azərbaycana Cənubi Qafqazda ətraf ölkələrin geosiyasi kursunu müəyyən edən" lider dövlət mövqeyi qazandırdı. Əlbəttə,

bütün bunlar regional və beynəlxalq səviyyədə müəyyən iqtisadi, siyasi, sosial-mənəvi üstünlüklər qazandırmaqla yanaşı, həm də ölkə qarşısında daxili həyatda, yerləşdiyi Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda, o cümlədən bütün dünyada xüsusi düşünülmüş və davamlı geosiyasi fəaliyyət göstərmək kimi vacib tələblər qoydu.

Cənubi Qafqaz və Xəzər hövzəsinin digər dövlətləri ilə müqayisədə hazırda Azərbaycanın beynəlxalq aləm üçün geosiyasi dəyər ölçülərini artıran, regional və beynəlxalq perspektivini yüksəldən, xarici aləmlə tərəfdaşlıq münasibətlərinə və milli inkişafına müsbət təsir göstərən əsas amillər daha çox - ölkənin təbii-mineral ehtiyatları, Qərblə Şərq arasındakı siyasi, hərbi, ticarət və s. əlaqələrə müsbət təsir göstərən coğrafi mövqeyi, mövcud nəqliyyat-kommunikasiya və tranzit imkanları, yürütdüyü geoiqtisadi siyasət və s. ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin geosiyasi təlimindən çıxış etsək, keçən əsrin son onilliyində və bu yüzildə Azərbaycanın qarşısında duran əsas geosiyasi, geoiqtisadi və hərbi-geostrateji vəzifələr, ölkənin gələcək geosiyasi uğurlarını təmin edəcək milli strateji kurs aşağıdakı kimi görünür:

**Cənubi Qafqazın lider dövləti geosiyasi statusunun qazanılması, möhkəmləndirilməsi və qorunub saxlanması**

Azərbaycan özünün "Cənubi Qafqaz regionunun lider dövlətinə çevrilmək" kimi geosiyasi və geostrateji iddialarını heç vaxt gizlətməmişdir. Bu gün Azərbaycan öz iqtisadi inkişaf potensialına və milli resurslarına görə faktiki olaraq regionun lider ölkəsinə çevrilmişdir. Cənubi Qafqazın insan resurslarının təxminən 60%-i, yanacaq-enerji və maliyyə resurslarının 90%-i, iqtisadi potensialının isə 75-80%-i Azərbaycanın payına düşür. Hazırda həm qonşu dövlətlər, həm də dünyanın əksər geosiyasi aktorları bütün ölçülər üzrə regionun "lider ölkəsi" statusunu daşımaq imkanını məhz Azərbaycana aid edirlər. Mütəxəssislərin fikrinə görə, Azərbaycanın bölgədəki əksər geosiyasi hadisələrə görə getdikcə artan məsuliyyəti fonunda həm də regional proseslərə təsir gücü günü-gündən yüksəlir. Beynəlxalq aləm Xəzər hövzəsi və Cənubi Qafqazın regional problemlərinin, bu məkanda reallaşdırılan əksər transmilli layihələrin və s. həllində ilk növbədə Azərbaycanın mövqeyini əsas götürür və onunla hesablaşmaq məcburiyyəti ilə üzləşirlər.

Hazırda Cənubi Qafqazdakı hər hansı məhəlli və beynəlxalq məsələdə, nə geosiyasi və geoiqtisadi imkanları xeyli zəif olan Gürcüstan, nə də ki Rusiyanın "forpostu" hesab olunan Ermənistan Azərbaycanla regional rəqabətə tab gətirə bilir. Gürcüstanda hakimiyyət dəyişikliyindən sonra onun yeni siyasi rəhbərliyi bu ölkəni postsovet məkanının əsas və aparıcı mərkəzinə çevirmək istəsə də, onun zəif iqtisadi potensialı, yararsız, köhnə infrastrukturları və s. buna imkan vermədi. Gürcüstanın iqtisadi perspektivi əsasən Azərbaycandan və Orta Asiyadan gələn enerji və digər malların Qərb ölkələrinə nəqlinə, Avropa-Asiya əlaqələrində tranzit dəhliz roluna hesablanmışdır. Bu ölkənin gəlir əldə etmək imkanlarının böyük hissəsi birbaşa Azərbaycanla bağlıdır. Gürcüstan öz enerji təhlükəsizliyinin təmin edilməsi məsələsində də Rusiya və Azərbaycandan tam asılı vəziyyətdədir. 2008-ci ildə bu ölkənin Rusiya ilə münasibətlərinin gərginləşməsi fonunda dərin enerji böhranına düçar olması və yalnız Azərbaycanın işə qarışmasından sonra vəziyyətdən çıxması söylədiklərimizin əyani sübutudur.

O ki qaldı Ermənistan və onun Cənubi Qafqazdakı mövqeyinə, Azərbaycanın beynəlxalq aləmdəki çəkisinin artması, son dövrlərdəki aktiv xarici siyasəti nəticəsində bu ölkənin işğalçı siyasəti ən yüksək tribunalardan etiraf olunmuşdur. Bu gün Ermənistan hətta ən yaxın strateji müttəfiqləri ilə münasibətlərdə də bu faktı ört-basdır etməkdə çətinlik çəkir. O, bütün regional və transmilli layihələrdən təcrid olunmuş və ağır sosial-iqtisadi böhrana düçar olmuşdur. Ölkənin əsas iqtisadiyyatı və həyati əhəmiyyətli infrastrukturları Rusiyanın tam nəzarətinə keçmiş, əsas daxili və xarici siyasət məsələləri, Cənubi Qafqazdakı geosiyasi fəaliyyəti Moskva ilə razılaşdırılır, onun rəyi olmadan erməni rəhbərləri heç bir müstəqil qərar qəbul edə bilmir.

Bundan başqa, Ermənistanda sosial durumun ildən-ilə ağırlaşması, əhalinin kütləvi şəkildə ölkəni tərk etməsi hakimiyyət strukturlarını çox ciddi demoqrafik problemlərlə üz-üzə qoymuşdur. Ermənistan Dövlət Statistika Xidməti öz açıqlamasında etiraf etmişdir ki, hər il orta hesabla 50-70 min vətəndaş xarici dövlətlərə miqrasiya edir. Ermənistanda əhalinin sayının "sabit" saxlanılması üçün ikili vətəndaşlıq tətbiq edilmiş və əhalinin sayını süni şəkildə 3 milyona qaldırmışlar. Halbuki BMT-nin Ermənistan nümayəndəliyinin və Rusiyanın müxtəlif rəsmi və qeyri-rəsmi qurumlarının araşdırmalarının nəticələrinə əsasən, bu ölkədə hazırda cəmi 1,5 milyon əhali yaşayır və gənclərin 70%-i Ermənistanı tərk edərək xaricdə məskunlaşmaq arzusundadır (Bax: "Şərq" qəzeti. 30 yanvar 2010. [1]33).

2009-cu ildə iqtisadi böhran Ermənistanda durumu daha da ağırlaşdırmış, ölkə iqtisadiyyatı 14,4% geriləmiş, əhalinin yaşayış səviyyəsi 30% aşağı düşmüş, işsizlərin sayı daha 82 min 900 nəfər artmışdır (Bax: "Səs" qəzeti. 23 fevral 2010. [1]39).

Ermənistanın Cənubi Qafqazdakı iri enerji layihələrindən kənarda qalması isə onun regionda sülhün və təhlükəsizliyin təmin olunmasına maneçilik törədən siyasət aparması ilə bağlıdır. Azərbaycanın iştirak etdiyi enerji-nəqliyyat dəhlizləri layihələrinə Ermənistanın qoşulmasına etiraz etməsinin əsaslı səbəbləri var. Bunların sırasına Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf rayonları Ermənistanın işğal altında saxlaması, Azərbaycanla onun Naxçıvan Muxtar Respublikasını birləşdirən nəqliyyat-kommunikasiya xətlərini dağıtması və Naxçıvanı blokadada saxlaması kimi məsələlər daxildir.

Təhlillər göstərir ki, hazırda Azərbaycanın iqtisadi potensialı Ermənistanınkından azı 10 dəfə yüksəkdir. Azərbaycanın son ildəki təkcə illik hərbi büdcəsi (təxminən 3,2 milyarad manat) Ermənistanın bütün dövlət büdcəsindən (təxminən 3 miyarad ABŞ dolları) artıq olmuşdur. İşğalçılıq siyasəti ilə özünü regionun bütün transmilli layihələrindən kənarda qoyan bu militarist ölkə işğal etdiyi Azərbaycan ərazilərinin müvəqqəti qarət edilməsindən, xaricdəki havadarlarından və çoxsaylı erməni diasporundan aldığı maliyyə dəstəyindən tam asılı vəziyyətdədir. Ekspertlərin hesablamalarına görə, hər il Ermənistanın xarici ölkələrdəki diaspor təşkilatlarından və şəxslərdən topladığı yardımlar ölkə iqtisadiyyatının daxili gəlirlərini iki dəfə üstələyir. Onların fikrinə görə, Dağlıq Qarabağ münaqişəsi zəminində ermənilərin xarici aləmdən aldıqları yardım dayandırıldıqdan sonra onun sosial-iqtisadi vəziyyəti daha da ağırlaşacaq.

Lakin bir faktı da inkar etmək olmaz ki, nə qədər ağır və perspektivsiz vəziyyətdə olsa da, Ermənistan Cənubi Qafqaz ölkələri və xalqları arasında yarana biləcək mehriban qonşuluq, qarşılıqlı-faydalı əməkdaşlıq və regional tərəfdaşlıq münasibətlərinə kifayət qədər mənfi təsir göstərmək gücünə malikdir. Bəzi geostrateqlərin fikrinə görə, Ermənistanın Cənubi Qafqazdakı "xüsusi geosiyasi missiyası" təkcə bölgə ölkələrinin "heç kimdən asılı olmayan, müstəqil regional əməkdaşlıq tendensiyasını" pozmaq deyil, həm də bu məkanda davamlı regional böhran, etnik-separatçı münaqişələr və s. yaradaraq, region ölkələrinin Avropa strukturlarına - NATO-ya, Avropa Birliyi və s. inteqrasiyasının qarşısını almaqdan ibarətdir. Ermənistanın hətta ən əlverişli şərtlər çərçivəsində belə Dağlıq Qarabağ münaqışəsinin həllindən hər dəfə bu və ya digər bəhanələrlə boyun qaçırmasının kökündə də məhz kənardan idarə olunan "geosiyasi missiya" dayanır.

Azərbaycanın qazanmaqda olduğu "regional lider dövlət" statusunu daha da möhkəmləndirməsi üçün qarşıdan gələn illərdə bir çox vacib və məsuliyyətli geosiyasi, geostrateji və geoiqtisadi vəzifələri reallaşdırması tələb olunur. Bu işin əsas hərəkətverici qüvvəsi rolunda ilk növbədə ölkənin ictimai-siyasi institutları, milli elitası və cəmiyyətin bütün orta təbəqəsi çıxış etsə də, müvəffəqiyyətli həlli daha çox hakimiyyət strukturlarından və həyata keçirilən rəsmi dövlət siyasətindən asılı olacaqdır.

**Avropa və dünyanın enerji təhlükəsizliyi sahəsindəki mövqeləri qorumaq, gücləndirmək və ölkənin milli maraqları ilə sıx əlaqələndirmək**

Azərbaycanın regionda və dünyada geosiyasi mövqeyini möhkəmləndirən əsas amillərdən biri Xəzərin ona məxsus sektorundakı zəngin karbohidrogen ehtiyatları və həmin resursların alternativ marşrutlarla dünya bazarlarına daşınması sahəsində həyata keçirdyi müstəqil və Qərbyönümlü enerji siyasəti olmuşdur. Ardıcıl şəkildə həyata keçirdiyi yeni neft strategiyası ilə Azərbaycan qısa müddətdə Avrasiyanın alternativ enerji daşıyıcılarının tranzit qovşağına və əsas təminatçılarından birinə çevrilmişdir. Mütəxəssislərin fikrinə görə, Azərbaycan Avrasiyanın "elə bir geosiyasi məkanına çevrilmişdir ki, orada "ABŞ, Avropa İttifaqı, Rusiya və başqa dünya güclərinin geoiqtisadi maraqları, geosiyasi və hərbi-geostrateji mövqeləri bir-birinə ən yüksək dərəcədə yaxındır" (Bax: Yohannes Rau. Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına dair Avropanın mövqeyi//"Azerbaijan Focus" jurnalı, yanvar-mart, 2010, s. 117).

Cənubi Qafqazda ən iri enerji, nəqliyyat-kommunikasiya layihələrinin təşəbbüskarı olması və onların fəaliyyətini təmin etməsi təkcə Azərbaycanın özünün deyil, həm də bütün Xəzər-Qara dəniz hövzəsi regionunun, Avropa və Amerikanın, bütün dünyanın strateji maraqlarını təmin edir. Avropa Birliyinin enerji təhlükəsizliyində həm tranzit ölkə, həm də neft və qaz təchizatçısı kimi tanınması XXI əsrdə Azərbaycanın geosiyasi dəyərini artırması üçün geniş perspektivlər yaradır. Bu sahədə onun bundan sonrakı həlledici mövqelərinin qorunması və möhkəmləndirilməsinə artıq təkcə əvvəlki Qərbyönümlü mövqelərdə dayanması, yaxud fərqli, müstəqil və alternativ geosiyasət yürütməsi bəs etməyəcəkdir. Azərbaycanın bundan sonrakı geosiyasi və geoiqtisadi dəyəri daha praqmatik və real şəkildə, dünyada kəskin rəqabət şəraitində, enerji bazarlarına daha ucuz qiymətə, sabit və artan miqdarda enerji resursları çıxarmaq qabiliyyətindən, bölgədəki xarici investisiyaların həcmini artırmasından, öz milli kapitalı ilə sonrakı transmilli enerji-nəqliyyat layihələrində xarici partnyorlarla bərabərhüquqlu tərəfdaşlıq əsasında iştirak etməsindən və s. asılı olacaqdır. Yalnız ölkənin neft və qaz hasilatını ildən-ilə artırmaqla və onu Qərbin artan enerji tələbatı ilə ağıllı surətdə əlaqələndirməklə üçüncü minillikdə Azərbaycanın geosiyasi və geoiqtisadi perspektivini artırmaq, dünyada,

Avrasiya regionunda və Cənubi Qafqazdakı mövqelərini getdikcə daha da möhkəmləndirmək olar. Mütəxəssislərin fikrinə görə, yaxın on ildə ölkənin ixrac üçün nəzərdə tutulan neft-qaz hasilatının artırılması və sonrakı 20 ildə sabit vəziyyətdə saxlanması təkcə onun iqtisadi və maliyyə vəziyyətini yaxşılaşdırmaq anlamında deyil, həm də beynəlxalq geosiyasi dəyərini artırmaq baxımından vacibdir. Bu reallığı nəzərə alaraq Xəzər dənizinin Azərbaycan sektorundakı enerji resurslarının istehsalının getdikcə artırılması və ən əsası, bu məhsulların məhz Avropa bazarına ixrac edilməsi Azərbaycanın dünya miqyasına çıxması, əhəmiyyətli "dünya dövlətinə" çevrilməsini şərtləndirən əsas amillərdən birincisidir.

**Enerji ixracı marşrutlarının şaxələndirilməsi və yeni satış bazarlarının axtarışı siyasətinin davam etdirilməsi**

Azərbaycan Avropa və Asiyanın nəqliyyat-kommunikasiya dəhlizlərinin və neft-qaz ixracatı marşrutlarının üzərində yerləşir. Ölkənin dünyada önəmli rol oynayan dövlətlərlə geoiqtisadi münasibətlərinin taktikasının düzgün müəyyənləşdirilməsi, neft-qaz ixracı marşrutlarının şaxələndirilməsi və səmərəli istifadəsinin təşkili, xarici aləmlə mövcud nəqliyyat-tranzit əlaqələrinin genişləndirilməsi, dünyada yeni-yeni satış bazarlarının axtarılması və mənimsənilməsi onun 2010-2020-ci illərdə reallaşdıracağı əsas geosiyasi və geoiqtisadi vəzifələr sırasına daxildir. Bu məqsədlə xarici aləmlə Azərbaycanı birləşdirən transmilli və ölkədaxili strateji tranzit-nəqliyyat infrastrukturlarının, neft-qaz kəmərlərinin yenidən qurulması, buraxılış və daşıma gücünün bir neçə dəfə artırılması xüsusi əhəmiyyət kəsb edir.

Rəsmi məlumatlara görə, keçən illərdə 34 beynəlxalq transmilli şirkət və 16 nüfuzlu dövlət Azərbaycanın təşəbbüsü ilə Xəzər regionundakı nəqliyyat-kommunikasiya dəhlizi və ixrac kəmərlərinin çəkilişi, yenidən qurulması və s. layihələrə qatılmış, onların reallaşmasında iştirak etmişdir. Bu layihələrdən ən vacibi, şübhəsiz ki, artıq istifadəyə verilmiş Bakı-Tbilisi-Ceyhan (BTC) əsas neft və Bakı-Tbilisi-Ərzurum (BTƏ) qaz kəməri, eyni zamanda Avropa Birliyinin TRASEKA layihəsi çərçivəsində yenidən qurulmuş və bərpa edilmiş Transqafqaz nəqliyyat-kommunikasiya dəhlizi ("İpək yolu") və tikilməkdə olan Bakı-Tbilisi-Qars dəmir yolu layihəsidir. Bu kəmərlər və nəqliyyat-kommunikasiya dəhlizləri təkcə Azərbaycanın deyil, bütün regionun geosiyasi vəziyyətini köklü şəkildə dəyişmiş, bölgə ölkələrinin müstəqilliyinin gücləndirilməsi, iqtisadiyyatının, sosial həyatının, ölkədaxili milli-vətəndaş birliyinin, siyasi plüralizm, vətəndaş cəmiyyəti və demokratik dəyərlərin inkişaf etdirilməsində və ən əsası, regional, beynəlxalq enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynamışdır.

Tədqiqatçılar hesab edirlər ki, dünyanın aparıcı ölkələrinin və şirkətlərinin BTC-nin reallaşmasındakı iştirakı təkcə Azərbaycanın deyil, həm də bölgənin enerji resursları ilə zəngin digər ölkələrinin geoiqtisadi gücünü artırmış, bəzi regional qüvvələri geosiyasi təsirlərdən azad etmiş və beynəlxalq aləmdə onların reallaşdırdığı transmilli enerji layihələrinə dəstək olmuşdur. Layihə iştirakçısı olan əksər dövlətlər həm də regionun geosiyasi proseslərinə daha fəal cəlb olunmuş və ona təsir göstərmək imkanı qazanmışdır. Azərbaycan tərəfindən davamlı şəkildə həyata keçirilən bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq, bütün tərəflərin ortaq maraqlarının nəzərə alınması və s. bu ölkənin xarici müttəfiqlərinin sayının artmasını şərtləndirmişdir.

Azərbaycan hazırda beynəlxalq aləmlə iqtisadi, enerji, nəqliyyat və s. əlaqələrini heç bir kənar təsirə məruz qalmadan, müstəqil şəkildə reallaşdırmağa çalışır. Bunun üçün ölkə rəsmiləri qarşıdan gələn illərdə həm mövcud transmilli nəqliyyat-kommunikasiya və enerji kəmərlərinin sabit fəaliyyətini, öz məhsullarının bu dəhlizlərlə sərbəst ixracını təmin etməli, həm də yeni-yeni alternativ bazarların axtarılmasını, kəmərlərin çəkilməsini və enerji ixracının şaxələndirilməsini davam etdirməlidir.

**Geosiyasi mövqelərin möhkəmləndirilməsi taktikasının çevikləşdirilməsi və sistemli təminatı**

Azərbaycan Respublikasının bugünkü əsas strateji mənafeləri və geosiyasi maraqları ilk növbədə onun dövlət suverenliyinin qorunub saxlanılmasını, ərazi bütövlüyünün bərpa edilməsini, əhalisinin həyat şəraitinin yaxşılaşdırılması və təhlükəsizliyinin təmin olunmasını, ölkə daxilində dayanıqlı siyasi və liberal iqtisadi sistemin formalaşdırılması və inkişafını, sosial-iqtisadi tərəqqinin davam etdirilməsini, xarici aləmlə ortaq maraqların tapılması və uzlaşdırılmasını, ölkənin milli maraqlarının təminatı ilə bağlı qazanılmış beynəlxalq dəstəyin getdikcə artırılmasını və s. vəzifələrin reallaşmasını tələb edir. Bu məsələlər Azərbaycanın bir dövlət kimi mövcudluğunu, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazdakı mövqelərinin güclənməsini şərtləndirən əsas strateji vəzifələr hesab olunur.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan diplomatiyasının bütün səyləri planetin mürəkkəb siyasi münasibətlər sistemində ölkənin müharibədən çıxarılmasına, pozulmuş ərazi bütövlüyünün bərpa olunmasına,

milli, regional və beynəlxalq maraqlarının təmin edilməsinə, xarici aləmlə dinc əməkdaşlıq mühitinin yaradılmasına yönəlmişdir. Prezident Heydər Əliyevin diplomatik məharəti, Azərbaycanın mühüm coğrafi mövqeyi, zəngin təbii ehtiyatları, dünya üçün kəsb etdiyi geosiyasi önəm və s. həmin vəzifələri həll etməyə şərait yaratmışdır. Azərbaycanın Avrasiyadakı əhəmiyyətli strateji mövqeyi və geosiyasi dəyəri məşhur dünya politoloqları, aparıcı tədqiqat mərkəzləri tərəfindən də etiraf olunmuşdur. Politoloq Z.Bjezinski bildirmişdir ki, "Müstəqil Azərbaycan Qərbin Xəzər hövzəsinin və Orta Asiyanın zəngin enerji resurslarına çıxışı üçün dəhliz ola bilər. Və əksinə, asılı Azərbaycan Orta Asiyanın dünyadan təcrid edilməsi deməkdir".

Digər tərəfdən, bir çox mütəxəssislər hesab edirlər ki, Azərbaycanın dünyadakı geosiyasi mövqeyinə müsbət təsir edən amillərdən biri bəzi hallarda onun mövqeyinin digər region ölkələrininki ilə üst-üstə düşməməsidir. Lakin bu geosiyasi uyğunsuzluq mövcud milli resursların bölüşdürülməsi və ortaq maraqlar naminə reallaşdırılan "kompromis siyasət" vasitəsilə aradan qaldırılır. Azərbaycanın dünyanın mühüm transmilli geosiyasi və geoiqtisadi maraqların kəsişmə nöqtəsində yerləşməsi və ölkə rəhbərliyinin indiyə qədər bu üstünlükdən məharətlə istifadə etməsi region ölkələri ilə yaranan ziddiyyətli məqamları aradan qaldırmışdır. Məsələn, Azərbaycanın da iştirak etdiyi tarixi "İpək yolu"nun bərpası ilk dövrdə Rusiyanı razı salmasa da, sonrakı dövrdə Azərbaycan dövlətinin yürütdüyü siyasət nəticəsində bu ölkə rəsmilərini bəhs olunan dəhlizin bütün regiona, o cümlədən də Rusiyaya mənfəət gətirəcəyinə inandıra bilmişdir. Azərbaycan öz səmərəli və müsbət mahiyyətli geosiyasəti ilə Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin açılmasında mühüm rol oynayaraq, Transqafqaz və Transasiya nəqliyyat dəhlizlərinin fəaliyyət göstərməsində təkcə öz milli maraqlarını deyil, Rusiya da daxil olmaqla bütün region ölkələrinin maraqlarını təmin etmiş, bölgəni dünyanın əsas tranzit mərkəzlərindən birinə çevirmişdir. Bakı-Tbilisi-Qars dəmir yolu da bu anlamda təkcə Azərbaycanın deyil, bütün bölgənin geoiqtisadi maraqlarının təmin olunmasında mühüm əhəmiyyət kəsb edəcəkdir.

Ciddi transmilli layihələri həyata keçirərkən Azərbaycanın geosiyasi və geoiqtisadi maraqlarının gələcək perspektivləri bundan sonra da hər hansı qarantiyalı inkişaf və tərəqqiyə nail olmaq, əsas strateji həyati ehtiyacları təmin etmək məqsədilə ölkənin geosiyasi addımlarını nüfuzlu regional və beynəlxalq dövlətlərlə, hövzədə geosiyasi maraqları ölkəmizlə üst-üstə düşən transmilli aktorlarla, güc mərkəzləri ilə uzlaşdırmağı tələb edir. Hazırda Azərbaycan yeni müstəqillik əldə etmiş dövlət kimi öz milli mənafelərini mövcud geosiyasi reallıqlara adekvat olaraq müəyyənləşdirməyə, regionda marağı olan əsas ölkələrlə uzlaşdırmağa məcburdur. Yaranmış vəziyyətdə bəzən Azərbaycan da başqa hövzə ölkələri kimi öz milli mənafelərinin qeyri-əsas hesab olunan bir qismini kiməsə güzəştə getməyə, yaxud hansısa "milli dividendləri" kiminləsə bölüşməyə məcbur olur. Əsas odur ki, bu prosesdə dövlət mövcud imkanlar daxilində öz milli və geosiyasi maraqlarının ən vacib, strateji sahələrini kiməsə güzəştə getməsin. Dünya siyasətşünasları belə fəaliyyəti planetin geosiyasi və beynəlxalq münasibətlərinin hazırkı vəziyyətində doğru addım hesab edir və Azərbaycanın bundan sonra da məhz belə davranış nümayiş etdirəcəyini proqnozlaşdırırlar.

### Dağlıq Qarabağ probleminin həllinə dinc yolla nail olunması

Xəzər hövzəsi və Cənubi Qafqazın geosiyasi perspektivləri ilə bağlı bütün beynəlxalq dəyərləndirmələrdə regional sülh və təhlükəsizlik məsələsi əsas şərt kimi irəli sürülür. Hazırda regionun inkişafı və dünyada gedən inteqrasiya proseslərinə qatılması məhz yerli ölkələr arasındakı sivil, dinc birgəyaşayış münasibətlərinin bərqərar olmasından, regional sülhün yaradılması və bölgədəki sabitliyin saxlanılmasından asılı vəziyyətə düşməkdədir. Bu gün Qafqazdakı postsovet ölkələrinin dördü də daxili etnik-separatist münaqişələrə cəlb olunmuşdur. Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ, Gürcüstan - Abxaziya, Gürcüstan - Cənubi Osetiya və Rusiya - Çeçenistan münaqişələri regionun sabitliyini hər an poza biləcək potensial təhlükə mənbələridir.

Qloballaşma dövründə istənilən ölkənin daxili həyatındakı münaqişə təkcə həmin ölkənin deyil, həm də ümumilikdə regionun və dünyanın geosiyasi və təhlükəsizlik mühitinə mənfi təsir göstərir, ölkələrin müxtəlif yönlü maraqlarına zərbə vurur.

Hazırda rəsmi Bakı Azərbaycanın və ümumilikdə regionun geosiyasi, geoiqtisadi maraqları və perspektivi baxımından, bütün daxili və xarici münaqişələrin tezliklə, yeni müharibəyə əl atmadan - sülh yolu ilə nizamlanmasının tərəfdarı kimi çıxış edir. Lakin eyni zamanda, "nə sülh, nə müharibə" vəziyyətinin də sonsuza qədər uzanmasına göz yuma bilməyəcəyi, "sülh danışıqları nəticəsiz yekunlaşacağı təqdirdə digər vasitələrlə öz beynəlxalq və milli haqlarını təmin edəcəyi" haqqında ara-sıra bəyanatlar səsləndirir. Əlbəttə, bu, beynəlxalq münasibətlərin hazırkı vəziyyətində ən doğru və optimal mövqedir. Çünki, Cənubi Osetiya ətrafında Rusiya-Gürcüstan müharibəsindən sonra yaranmış beynəlxalq və regional hərbi-geostrateji vəziyyət göstərir ki, yaxın zamanlarda nə müharibə, nə də ki sülh yolu ilə Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünü bərpa etmək asan olacaq. Hazırda Ermənistan dünya dövlətlərinin ikili siyasətindən, BMT-nin və ATƏT-in dişsiz fəaliyyətindən,

Minsk qrupunun və həmsədr ölkələrin neçə illərdir ciddi bir mövqe ortaya qoya bilməməsindən, dünyadakı erməni diasporunun aparıcı ölkələrin rəsmi siyasətinə göstərdiyi ciddi təsirdən, Rusiya və başqa ölkələrin hərbi-iqtisadi dəstəyindən bəhrələnərək öz işğalçı siyasətindən əl çəkmək istiqamətində hər hansı ümidverici mövqe sərgiləmir. 2009-cu ildə ATƏT-in Minsk qrupunun aktivləşməsinə baxmayaraq, hələ də münaqişənin ədalətli həllinə səbəb olacaq prinsipial mövqe nümayiş etdirməməsi, əlbəttə, haqlı olaraq 20 ilə yaxın bir müddətdə sülhə ümid edərək gözləmə mövqeyi tutmuş Azərbaycanın təkcə səbrini tükətmir, həm də getdikcə müharibəyə başlamaq ehtimalını artırır.

Bu gün Dağlıq Qarabağ problemi təkcə iki ölkə arasında yaşanan lokal münaqişə deyil, bütün regionun ciddi geosiyasi böhrana sürüklənməsidir və ayrı-ayrılıqda hər iki ölkənin sosial-iqtisadi inkişafı yolunda böyük maneədir. Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına münasibət bildirən bütün nüfuzlu qurumlar və ekspertlər bu problemi "regionda sülh və sabitliyi ən çox təhdid edən real bir təhlükə" kimi xarakterizə etmişlər və etməkdədirlər. İstər Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının sessiyasındakı çıxışı zamanı, istərsə də sonrakı çıxışlarında Azərbaycan Prezidenti İlham Əliyev işğal altında olan Azərbaycan ərazilərinin rəsmi Bakının və beynəlxalq aləmin nəzarətindən çıxdığını, "nəzarətsiz və təhlükəli zonaya" çevrildiyini bəyan etmişdir. Bu isə həmin ərazidə beynəlxalq terrorizm, nəzarətsiz silah və narkotik qaçaqmalçılığı üçün əlverişli şərait yaradır.

Rəsmi Bakının hazırda xarici siyasətinin əsas istiqamətlərindən birini məhz dünya birliyinin bu problemə beynəlxalq hüquqa uyğun, konstruktiv və prinsipial yanaşmasını təmin etmək və onun köməkliyi ilə Azərbaycanın ərazi bütövlüyünün bərpasına nail olmaq təşkil edir. Keçən müddətdə bu istiqamətdə həyata keçirilən fəaliyyət nəticəsində Azərbaycan hökuməti bəhs olunan münaqişənin mahiyyətini açmış və dünya ölkələrinin ictimaiyyətinə çatdırmış, ermənilərin ölkəmizə qarşı həyata keçirdikləri işğalçılıq faktını BMT TŞ-nin dörd qətnaməsində, ATƏT, Avropa İttifaqı, Avropa Şurası, NATO, İKT və s. qurumların sənədlərində əks etdirmişdir. Lakin Dağlıq Qarabağ münaqişəsinin 20 ildən çoxdur həllini tapa bilməməsində dünyanın aparıcı dövlətlərinin və onların təmsil olunduğu qurumların ikili standartlar çərçivəsindəki yanaşmasının, yalnız deklarativ bəyanatlar verməklə kifayətlənməsinin, məsələyə seyrçi münasibət göstərməsinin xüsusi təsiri olmuşdur.

Mütəxəssislərin fikrinə görə, 1998-ci ildən başlayaraq ildən-ilə öz iqtisadi və hərbi potensialını gücləndirən, bütün dünyada nüfuzu artan və etibarlı tərəfdaş kimi qəbul edilən Azərbaycanın fəal xarici siyasəti, diplomatik uğurları danışıqlar prosesinin dinamikləşməsinə, konstruktivlik potensialının artmasına səbəb olmuş, Ermənistanı real seçim qarşısında qoymuşdur. Tədqiqatçılar hesab edirlər ki, Azərbaycanın siyasi və hərbi mövqelərinin, iqtisadi potensialının bundan sonra da güclənəcəyi, Ermənistanda isə sosial-iqtisadi böhranın daha da dərinləşəcəyi davam etsə, onun gələcəkdə Dağlıq Qarabağ məsələsində ciddi güzəştlərə getməsi qaçılmaz olacaqdır.

Lakin dünyanın əksər konfliktoloqları bu münaqişənin həllini yalnız sülh yolu ilə, ədalətli, beynəlxalq hüquq normaları əsasında mümkün sayır və belə olacağı təqdirdə Azərbaycanın real geosiyasi imkanlarının daha da artacağını, onun öz regional lider statusunu bir qədər də möhkəmləndirəcəyini proqnozlaşdırırlar. Yenidən müharibəyə cəlb olunması hazırkı dövrdə əsasən dinamik inkişaf edən və getdikcə dünyada öz nüfuzunu artıran, beynəlxalq mövqelərini gücləndirən tərəfin - Azərbaycanın ziyanına, Ermənistanınsa xeyrinə işləyəcək. Çünki bu müharibə getdikcə Azərbaycanın ədalətli sülh təklifləri ilə razılaşmaqdan başqa çıxış yolu və bəhanələri qalmayan, arqumentləri tükənən Ermənistana, onun beynəlxalq havadarlarına, regionun və dünyanın antiazərbaycan qüvvələrinə Azərbaycanı "militarist və müharibə tərəfdarı olan ölkə kimi" dünyada "rüsvay və biabır etmək" üçün göydəndüşmə bir fürsət olacaqdır.

**Qərblə əməkdaşlığı zəiflətmədən, Türkiyə ilə strateji münasibətlərin dərinləşdirilməsi, Rusiya və İranla qarşılıqlı maraqlara söykənən tərəfdaşlıq münasibətlərinin yaradılması və inkişaf etdirilməsi**

SSRİ-nin süqutundan sonra analitiklər dünyada "soyuq müharibə" dövrünün bitdiyini və Qərbin postsovet ölkələri, xüsusilə Rusiya ilə münasibətlərində yeni - əməkdaşlıq erasının başlandığını bəyan etdilər. XX əsrin son onilliyində postsovet məkanında və Şərqi Avropada demokratikləşmə dalğasının geniş vüsət alması, Rusiyada çoxsaylı daxili problemlərin mövcudluğu, o cümlədən müşahidə olunan iqtisadi tənəzzül, ictimai-siyasi çəkişmələr, onun yerləşdiyi regiondakı qeyri-sabitlik, Çeçenistan müharibəsi və digər məsələlər rəsmi Moskvanın diqqətini müəyyən mənada Avrasiya bölgəsində və dünyada yaşanan əsas geosiyasi proseslərdən yayındırırdı. Diqqətini daha çox daxili problemlərin həllinə yönəldən Rusiya, müvafiq olaraq regionda, Avropada və dünyada öz geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqelərini bir-birinin ardınca itirməyə başladı. Həmin dövrdə Rusiyanın xarici siyasətində təkcə Cənubi Qafqaz və Azərbaycanda deyil, bütün

istiqamətlərdə anlaşılmaz hərəkətlər müşahidə olunurdu. Qərb analitikləri bunu təkcə SSRİ-nin dağılmasının fəsadları kimi xarakterizə etmir, həm də Rusiyada siyasi sistemin və hakimiyyət strukturlarının böhranı kimi təqdim edir, bu prosesi demokratikləşmənin xeyrinə təsnif edərək, onun daha da dərinləşməsinə çalışırdılar.

2000-ci ilin əvvəlində Rusiyanın xarici siyasətində sabitləşmə müşahidə olunmağa başlayır. Bəzi ekspertlər Rusiyanın həmin dövrdəki xarici siyasət kursunu "praqmatik strategiya" kimi dəyərləndirərək, öz fikirlərini onunla əsaslandırmağa çalışırdılar ki, "Rusiya müasir dövrün inkişaf tendensiyalarını nəzərə alaraq imperiya siyasətini "qarşılıqlı faydalı əməkdaşlıq mühitində milli maraqların müdafiəsi xətti" ilə əvəz etmişdir". Lakin 2008-ci ildə Gürcüstanla hərbi qarşıdurmasından sonra Qərblə Rusiya arasında başlanan yeni geosiyasi münaqişə bütün dünyada olduğu kimi, hər iki düşərgənin Cənubi Qafqaz siyasətinə də öz müvafiq təsirini göstərmişdir. Tədqiqatçılar qarşıdan gələn illərdə Rusiya ilə Qərb arasında Avrasiyada yeni geosiyasi, geoiqtisadi rəqabətin, hərbi-geostrateji ziddiyyətlərin güclənəcəyini proqnozlaşdırır və öz fikirlərini kifayət qədər məntiqi mülahizələrlə əsaslandırırlar.

Azərbaycanın mövcud geosiyasi maraqları və bugünkü rəsmi siyasəti ölkə ərazisinin və Cənubi Qafqazın kimlərinsə "geosiyasi və hərbi-geostrateji münaqişə obyektinə" deyil, bütün sivil dünyanın "tərəfdaşlıq, qarşılıqlı-faydalı əməkdaşlıq və ədalətli iqtisadi yarış meydanına" çevrilməsini tələb edir. Rəsmi Bakı indiyə qədər Rusiya, Qərb, Türkiyə, İran və başqa güclər arasında - Avrasiya, Xəzər hövzəsi və Cənubi Qafqazın geoiqtisadi və geosiyasi hədəfləri uğrunda gedən mübarizədən "tam müstəqil mövqe tutmaqla" və öz milli maraqlarına uyğun hərəkət etməklə, müəyyən məsafə saxlamağa nail olmuşdur ki, bu da onun regiondakı geosiyasi mövqelərini daha da gücləndirmişdir.

Bundan başqa, ABŞ-da baş verən 2001-ci il 11 sentyabr hadisələrindən sonra dünya geosiyasətində yaranan "yeni reallıqlar"dan düzgün istifadə etməsi və müvafiq siyasət yürütməsi də Azərbaycanın bölgədəki geosiyasi çəkisini və rolunu xeyli artırmışdır. O dövrdən başlayaraq Azərbaycanın müstəqil ölkə kimi dəyəri yalnız Qərb üçün deyil, həm də ayrıca olaraq Türkiyə, İran və Rusiya üçün də xeyli artmışdır. Rəsmi Bakının əldə etdiyi əsas geostrateji uğur ondan ibarət olmuşdur ki, o, regionda geosiyasi maraqları təmsil olunan güc mərkəzlərinin hamısı üçün "ortaq balans obyektinə" cevrilmiş və onların heç biri Azərbaycanın "zəif və gücsüz olmasında", kiminsə "forpostu" statusunda çıxış etməsində maraqlı olmamışdır. Məsələn, Qərb və Türkiyə "müstəqil və güclü" Azərbaycana Rusiyanın, yaxud İranın "təzyiqlərinə sinə gərən, onların bu regionu tam nəzarətə götürməsinin qarşısını ala biləcək faktor kimi" yanaşdığı halda, İran Azərbaycandan "öz ərazisindən bu ölkəyə qarşı NATO və ABŞ-ın istifadə etməsi istəyinə müqavimət göstərdiyinə" və s. müstəqil iradəsinə görə razı qalmışdır.

Məlum olduğu kimi, Azərbaycan paralel olaraq Bakı-Novorossiysk kəməri ilə Rusiya ərazisindən də neft nəqlini davam etdirir, Şimali Qafqaz və Çeçenistan məsələsində rəsmi Moskvanın mövqeyini dəstəkləyir, Müstəqil Dövlətlər Birliyi çərçivəsində onunla iqtisadi inteqrasiya proseslərində iştirak edir, regional terrorizmə qarşı mübarizədə öz fəallığı ilə seçilir, beynəlxalq təşkilatlarda Rusiya ilə bağlı istənilən müzakirələrdə onun əleyhinə olan bloklara qoşulmur və s. Bütün bunlar, öz növbəsində, Rusiyanı da Azərbaycanın "tam neytral və tarazlaşdırılmış siyasət yürütmək gücündə olan" dövlət kimi qalmasında maraqlı edir. Bu, həm də rəsmi Bakının Rusiyanın rəqibi rolunda çıxış edən digər güc mərkəzlərindən "asılı vəziyyətə düşməməsinə" əlavə təminatdır. Azərbaycanın Cənubi Qafqazda rəqabət aparan hər üç mərkəzlə münasibətlərinin yüksək səviyyədə qurulmasının əsas səbəbi də məhz yuxarıda göstərilən amillər və Azərbaycan Prezidentinin indiyə qədər çevik manevr imkanlarından yetərincə bəhrələnə bilməsi olmuşdur.

Azərbaycan mütəxəssislərinin fikrinə görə, öz məxsusi milli maraqlarından çıxış edərək, Qərb-Rusiya münasibətləri fonunda yürütdüyü hazırkı "tərəfsiz və tarazlaşdırılmış siyasi kursu" bundan sonra da davam etdirərək, həm Qərblə əvvəlki strateji münasibətlərini qorumalı, regionun həm də Rusiya və İran kimi iri ölkələri ilə tərəfdaşlıq münasibətlərini genişləndirməlidir. Milli və təhlükəsizlik maraqları, eyni zamanda Azərbaycanın əsas müttəfiqi hesab olunan Türkiyə ilə strateji müttəfiqlik münasibətlərinin qorunub saxlanılmasını və hərbi-geostrateji sahədə dərinləşdirilməsini tələb edir.

### ABŞ-İran geosiyasi ziddiyyətləri fonunda hər iki dövlətlə dostluq və tərəfdaşlıq münasibətlərinin qorunması

1979-cu il İran islam inqilabından sonra dünyanın siyasi xəritəsində yeni bir ziddiyyətli regional geosiyasi qarşıdurmanın əsası qoyulmuşdur. 30 ildən artıq dövr keçməsinə baxmayaraq, ABŞ və İran münasibətlərinin tənzimlənməsi istiqamətində heç bir müsbət nəticə əldə edilməmişdir. 2007-ci ildən sonra İranın nüvə proqramı Tehranla Vaşinqton arasındakı ziddiyyətlərin daha də kəskinləşməsinə səbəb olmuş və yeni geostrateji münaqişə ocağının alovlanmasına şərait yaratmışdır. Bu məsələdə müasir dünyanın hərbi-strateji güc mərkəzləri

uzun müddət vahid mövqeyə gələ bilməmiş və nəticədə problem getdikcə dərinləşərək kəskinləşmişdir. ABŞ, Avropa İttifaqı və İsrail cidd-cəhdlə İrana qarşı sanksiyaları gücləndirməyə, rəsmi Tehranı nüvə proqramından əl çəkməyə məcbur etməyə çalışır, Rusiya və Çin isə bu məsələnin danışıqlar yolu ilə həll edilməsinə tərəfdar çıxaraq, tələb olunan sərt metodlara etiraz edirlər.

İran-ABŞ qarşıdurmasında Azərbaycanın indiyə qədər nümayiş etdirdiyi mövqe daha çox İran və ABŞ-ın istək və tələbləri, yaxud hansısa əsassız ambisiyaları üzərində deyil, daha çox müstəqil dövlət olaraq Azərbaycanın məxsusi maraq və mənafeləri üzərində qurulmuşdur. Azərbaycan keçən müddətdə, həm də ortaq maraqlar çərçivəsində ayrı-ayrılıqda ABŞ və İranla dost, tərəfdaş, ədalətli və etibarlı qonşu kimi qarşılıqlı-faydalı əlaqələr qurmuş və ikitərəfli münasibətləri inkişaf etdirmişdir. Azərbaycanın hər iki ölkə ilə münasibətləri onların bir-biri və digər xarici aktorlarla münasibətlərinin fövqündə dayanmışdır.

Lakin bütün bunlara baxmayaraq, İran-ABŞ qarşıdurması Azərbaycan üçün bölgədə və dünyada həmişə bəzi problemlər yaradaraq, ölkəni daha ehtiyatlı, ardıcıl və çevik siyasət yürütməyə, diplomatik və geosiyasi manevr imkanlarından bacarıqla istifadə etməyə məcbur etmişdir. Mütəxəssislər hesab edirlər ki, hazırda Birləşmiş Ştatların İrana qarşı hərbi əməliyyatlara başlamaq niyyəti reallaşarsa, Azərbaycanın manevr imkanları ciddi şəkildə məhdudlaşacaqdır. Çünki illərdir dünyada beynəlxalq terrorizmin əsas dayaqlarından biri kimi təqdim olunan İrana BMT-nin sanksiyası əsasında hərbi müdaxilə başlayacağı təqdirdə bu plana mane olmaq, yaxud da onunla bağlı hər hansı dirəniş göstərmək dünyanın bir nömrəli güc mərkəzi olan ABŞ-la münasibətlərə ciddi mənfi təsir göstərə bilər. Digər tərəfdən, Azərbaycan regionda ən uzun müştərək sərhədə, ortaq tarixə və geosiyasi məkana malik olduğu dost İran dövlətinin, onun 30 milyondan çoxu azərbaycanlı olan 70 milyonluq müsəlman əhalisinin də maraqlarını zərbə altında qoyaraq, bölgənin əsas geosiyasi fiqurlarından olan qonşu dövlətlə münasibətlərini korlaya bilməz.

Hazırda ABŞ-la münasibətləri gərginləşən İran region dövlətləri və xüsusilə Azərbaycanla əlaqələrini daha da yaxşılaşdırmağa çalışır və onun bu səyləri getdikcə güclənəcəkdir. Bəzi ekspertlər hesab edirlər ki, Təbriz şəhərində Azərbaycan konsulluğunun açılması və Azərbaycan vətəndaşları üçün viza rejiminin aradan qaldırılması, rəsmi Tehranın ölkəmizin ərazi bütövlüyünü dəstəkləməsi, enerji mübadiləsi və ticarət məsələlərində irəliləyiş əldə olunması, İran ərazisi ilə Naxçıvana gediş-gəlişin açılması həmin səylərin göstəricisidir. Bütün bunların müqabilində İran Azərbaycanı öz tərəfinə çəkərək, antiqərb düşərgəsinə qatmağa, Tehranın mövqelərini müdafiə etməyə, bunlar mümkün olmayacağı təqdirdə isə tərəfsiz qalacağına təminat almağa çalışır. Ekspertlər belə qənaətdədirlər ki, Azərbaycanın buna qarşılıq verməsi Qərblə, verməməsi isə İranla münasibətlərində mənfi fəsadlar yaradacaqdır.

ABŞ-İran münasibətlərinin getdikcə kəskinləşməsinə baxmayaraq, Azərbaycan öz siyasətini dəyişmək və tərəfsizliyini pozmaq niyyətində deyil. Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, sülhsevər dövlət kimi Azərbaycan bütün dünya və region ölkələri ilə, o cümlədən də İranla qarşılıqlı maraqlara cavab verən dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında maraqlıdır. İranla Azərbaycan arasında imzalanmış dövlətlərarası müqavilədə hər iki dövlətin öz ərazisindən bir-birinə qarşı istifadənin yolverilməzliyi ilə bağlı müddəanın daxil edilməsi də bu məsələnin rəsmi Bakı tərəfindən ən yüksək səviyyədə bəyan olunması deməkdir və Azərbaycanın səmimi, etibarlı və mehriban qonşuluq niyyətinin əyani göstəricisidir. Azərbaycan həmişə sübut etmişdir ki, o, hər hansı qonşu və yaxud qeyri-qonşu dövlətin marağına toxunan addımlar atmır və bu sahədə imzalanmış bütün dövlətlərarası, beynəlxalq anlaşmalara hörmətlə yanaşır. Digər tərəfdən, 2006-cı ildə Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-a səfəri zamanı bu ölkə ilə ikitərəfli münasibətləri, tərəfdaşlıq siyasətini inkişaf etdirmək istiqamətində müəyyən addımlar atarkən ilk növbədə İranın bu və ya digər rəyini, tələblərini deyil, öz ölkəsinin və xalqının milli maraqlarını rəhbər tutmuşdur. Səfər zamanı Prezident İlham Əliyev eyni zamanda Azərbaycan ərazisindən İrana qarşı hər hansı hərbi əməliyyat keçirilməsinə və bütövlükdə Cənubi Qafqaz regionunun ABŞ-İran mübarizəsinin "poliqonuna" çevrilməsinə imkan verilməyəcəyi haqqında açıq bəyanat da səsləndirmişdir. Səfər ərəfəsində "Fiqaro" qəzetinə verdiyi müsahibəsində o bildirmişdi ki, "İranda sabitliyin pozulması bütün regiona öz təsirini göstərə bilər. Hesab edirik ki, münaqişə diplomatik vasitələrlə, sülh və dialoq yolu ilə, xoş məramla həll olunmalıdır. Azərbaycan bu ölkəyə qarşı hərbi əməliyyatları dəstəkləməyəcək. Düşünürəm ki, Vaşinqton da buna anlaşıqlı yanaşacaq" (Bax: "Azərbaycan" qəz., 04 iyun 2006).

Beləliklə, göründüyü kimi, Azərbaycan indiyə qədər həm ABŞ və Avropa ilə, həm də İranla qrşılıqlı tərəfdaşlıq münasibətləri qurmaq bacarığını ən çətin məqamlarda belə nümayiş etdirə bilmişdir. Lakin hərdən adı çəkilən hər üç düşərgəni təmsil edən dövlət qurumları və rəsmilərinin Ermənistanın regiondakı bu və ya digər addımlarını dəstəkləməsi, bu ölkənin işğalçılıq və separatçılıq siyasətini müdafiə etməsi Azərbaycanın haqlı narazılığına da səbəb olur.

Göründüyü kimi, Cənubi Qafqaz və Xəzər hövzəsinin müasir mürəkkəb geosiyasi reallıqları çərçivəsində və dünya siyasətinin qeyri-müəyyənliklərlə dolu hazırkı şəraitində Azərbaycan ABŞ-İran münasibətlərinin xarakterindən asılı olmayaraq öz geostrateji mövqelərini və milli maraqlarını qorumağa və bir qədər də möhkəmlətməyə nail olmuşdur. Qarşıdan gələn illərdə eyni geosiyasi xəttin - regionda marağı olan Qərb dövlətləri, dünyanın aparıcı güc mərkəzləri ilə transmilli layihələrin reallaşdırılması sahəsində tərəfdaşlıq əlaqələrini davam etdirməklə, həm də İran kimi böyük qonşu ölkələrlə tərəfdaşlıq əlaqələrinin qurulması və davam etdirilməsi Azərbaycana sabit inkişaf və perspektivli gələcək vəd edir. Siyasi və iqtisadi perspektivdə ölkənin regional lider statusunun möhkəmləndirilməsi də onun bundan sonra həyata keçirəcəyi geosiyasi xətdən və dünyanın ən əhəmiyyətli geoməkanlarından hesab olunan Avrasiya bölgəsində qazanacağı mövqedən, planetin əsas geosiyasi aktorları ilə yarada biləcəyi münasibətlərdən asılı olacaqdır.

**Yeni geosiyasi reallıqlara və bundan irəli gələn qlobal çağırışlara operativ reaksiya verilməsi, strateji tərəfdaşlarla geosiyasi münasibətlərə xələl gətirmədən daha praqmatik siyasət yürüdülməsi**

Azərbaycan keçən illərdə öz strateji tərəfdaşları ilə nəhəng transmilli enerji və nəqliyyat layihələri reallaşdırmaqla Avrasiyanın geosiyasi xarakteristikasını ciddi şəkildə dəyişmişdir. Yeni enerji-ixrac marşrutları və yeni geoiqtisadi şərtlər çərçivəsində Xəzər hövzəsinin və Orta Asiyanın zəngin karbohidrogen resurslarının dünya bazarlarına çıxarılması təmin edilmiş və faktiki olaraq bölgənin ənənəvi enerji ixracının şaxələndirilməsinə (diversifikasiyasına) nail olunmuşdur. Azərbaycanın təşəbbüsü və dünyanın ən aparıcı ölkə və şirkətlərinin iştirakı ilə yaradılan transmilli enerji konsorsiumu, yeni istehsal, ixrac marşrutları və s. infrastrukturlar Cənubi Qafqaz və Xəzər regionunun inkişafına ciddi təsir göstərmiş, bölgəni Avropa və dünya ölkələrinin güclü maliyyə və qabaqcıl texnologiyalarının üzünə açmışdır. Prezident Heydər Əliyevin qətiyyəti və böyük səyləri, tərəqqipərvər dünyanın hərtərəfli dəstəyi nəticəsində o dövrdə bəzi ölkələrin və maraqlı qüvvələrin bu işə mane olmaq cəhdləri müvəffəqiyyətlə neytrallaşdırılmışdır. Artıq Avropanın enerji təhlükəsizliyi məsələsində əhəmiyyətli rol oynamağa başlayan Transqafqaz enerji ixracı kəmərləri həm də Mərkəzi Asiya və Xəzər hövzəsi ölkələrinin geosiyasi və geoiqtisadi müstəqilliyinə ciddi təsir göstərmiş, onların Qərblə yaxınlaşması yolunda əsas maneələri aradan qaldırmışdır.

Bəzi region ölkələrindən fərqli olaraq, Azərbaycan bəhs olunan şəraitdən ciddi şəkildə bəhrələnmiş, regionla əlaqəyə can atan bütün transmilli şirkətlərlə, xarici dövlətlərlə, güc mərkəzləri ilə yaxından əməkdaşlıq etməyə, ABŞ, Avropa İttifaqı ölkələri, Türkiyə, Rusiya, Gürcüstan kimi dövlətlərlə strateji əlaqələr qurmağa, bu əməkdaşlıqdan milli maraqlar naminə yararlanmağa müvəffəq olmuş və eyni zamanda öz müstəqil siyasətini də qoruyub saxlaya bilmişdir. Ekspertlər hesab edirlər ki, Azərbaycan bütün fəaliyyəti və geosiyasi addımları ilə Xəzər hövzəsi və Cənubi Qafqazda sabitləşdirici rol oynamış bir ölkədir.

Son bir neçə ilə nəzər saldıqda, Avrasiyanın bəzi bölgələrində, xüsusən Xəzər-Qara dəniz hövzəsi, Orta Asiya və Cənubi Qafqazda yeni geosiyasi reallıqlar formalaşmaqdadır. Bunun bəzi əlamətləri açıq, bəziləri isə dolayısı ilə Azərbaycanın da geosiyasi maraqlarına toxunur və ölkə rəhbərlərini müvafiq addımlar atmağa, çevik, operativ, adekvat qərarlar qəbul etməyə sövq edir.

Avrasiyanın yeni geosiyasi reallığının ilk gözəçarpan görüntüləri aşağıdakı kimi görünür:

lABŞ-ın keçmiş prezidentləri B.Klinton və C.Buş dövründəkindən fərqli olaraq, Barak Obama administrasiyasının Avrasiyada öz regional maraqları ilə bağlı fərqli meyarlar və ölçülər nümayiş etdirməsi, Rusiya və digər bölgə ölkələri ilə münasibətlərə yenidən baxması və bu fonda Cənubi Qafqaza öz marağını azaltması müvafiq olaraq bölgədəki duruma, fərqli maraq daşıyicisi olan böyük və kiçik ölkələrin geosiyasi vəziyyətinə də təsir göstərməkdədir.

lABŞ-ın yeni strateji doktrinası və Avrasiyada yürütdüyü siyasət həm də regiondakı əsas geosiyasi aktorlar arasındakı müttəfiqlik və rəqiblik əlaqələrinin əvvəlki nizamını bir qədər pozmuşdur. Məsələn, hazırda bəzi sahələrdə ABŞ-la Orta Asiya ölkələri, Ukrayna, Azərbaycan və s. kimi bölgə dövlətləri arasında bəzi anlaşılmaz münasibətlər ortaya çıxmışdır. Əvəzində bu ölkənin Rusiya ilə əvvəlki "Avropanın strateji müdafiəsinə yönəlmiş hərbi-geostrateji problemləri" aradan qalxmışdır. Yaxud, son zamanlar Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı strateji əməkdaşlıq münasibətlərində - enerji dəhlizləri, satışı, ixrac marşrutları və tariflər, nəqliyyat-tranzit keçidləri, onların təhlükəsizliyi və s. məsələlərdə bir çox əsassız iddialar ortaya çıxmışdır. Eyni zamanda, əvvəllər bir-birinə enerji sahəsində rəqib kimi yanaşan Rusiya-Türkiyə, Rusiya - Azərbaycan, İran-Azərbaycan və s. ölkələr arasında neft, qaz və elektrik enerjisi mübadiləsi və nəqli sahələrində əməkdaşlıq və tərəfdaşlıq münasibətləri yaranmaqdadır.

lSon zamanlar Rusiyanın bütövlükdə Avrasiya regionu ölkələrinə, xüsusən də Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaza geosiyasi və geoiqtisadi təsirinin və bölgədəki proseslərdə fəallığının artması fonunda, ABŞ və

Avropa Birliyinin həmin mövqelərdən qismən geri çəkilməsi tendensiyası müşahidə olunur. Bunu son illərdə Ukraynada, Şərqi Avropada, Gürcüstanda, Türkiyədə və başqa ölkələrdə yaşanan proseslərdə bəhs olunan aktorların öz əvvəlki prinsipial mövqelərindən asanlıqla imtina etmələri də sübut edir. Mütəxəssislərin bu vəziyyətlə bağlı gəldiyi ilk qənaət ABŞ-ın nəyinsə xatirinə (məsələn İran, Liviya və s. məsələlərdə güzəştə getməsinə görə) öz müttəfiqlərini və onların maraqlarını Rusiyaya güzəştə getməsi fikrindən ibarətdir.

lABŞ-İran ziddiyyətlərinin son dövrdə kəskinləşməsi həm də regionda yeni geosiyasi vəziyyət yaradaraq, bölgə ölkələrini öz maraqlarını qorumaq üçün yeni seçim qarşısında qoymuşdur.

lABŞ-ın Avrasiya siyasəti zəiflədikcə, həm də Türkiyənin bu bölgədəki geosiyasi fəallığı, proseslərə müdaxilə etməsi və qoşulması halı müşahidə olunur. Xüsusən son bir ildə ABŞ, İsrail və bəzi Avropa ölkələri ilə münasibətlərində soyuqluq yaranması fonunda Türkiyənin "fəal Avrasiya geosiyasəti" və "yeni geosiyasi taktikası" özünü göstərir. Hazırda bu ölkə bölgənin Rusiya, İran, Yaxın və Orta Şərq, Balkanlar, keçmişdə Osmanlı imperiyası ilə bağlı olan digər ərazilər, xalqlar və dövlətlərlə öz iqtisadi-siyasi əlaqələrini, tərəfdaşlıq münasibətlərini və bəyan etdiyi "yeni regional lider iddiasına" uyğun gələn "məxsusi milli maraq və davranış normaları çərçivəsi"ni yaradır və getdikcə ciddi şəkildə gücləndirməyə çalışır. Türkiyə rəhbərliyi bütün dünyaya açıq şəkildə nümayiş etdirir ki, onun ölkəsi bundan sonra Qərbin Rusiyaya qarşı "təhlükəsizlik şiti" və yaxud islam dünyasında "geosiyasi təsir vasitəsi" olmaq niyyətində deyil.

Tədqiqatçılar hesab edirlər ki, Türkiyənin yeni geosiyasi davranışı və kursu, həmin kursun son zamanlar regionda yaratdığı regional vəziyyət Azərbaycanın ziyanına deyil, əksinə, bu ölkənin güclənən geosiyasi vəziyyəti daimi və strateji müttəfiq kimi, həm də bilavasitə Azərbaycanın xeyrinədir. Lakin yeni şərait müstəqil dövlət kimi Azərbaycanın xarici siyasəti qarşısında bir çox yeni vəzifələr qoyur, ondan geosiyasi və xarici siyasət məsələlərinə "şəraitə uyğun" operativ düzəlişlər etməyi tələb edir.

İlk növbədə, fikrimizcə, dünyada baş verən son qlobal dəyişikliklər fonunda Cənubi Qafqazda formalaşmış geosiyasi reallıq və onun yeni təzahürləri ciddi təhlil olunmalı, proseslərə təsir göstərən amillər, onların meydana gəlməsi səbəbləri və s. məsələlər araşdırılmalı, mövcud şəraitdə Azərbaycanın geosiyasi və geoiqtisadi addımları, transmilli layihələrlə bağlı prioritet vəzifələri, onların təmin olunması yolları və vasitələri üzərində praqmatik şəkildə bir daha düşünülməlidir. Məsələn, bəzi mütəxəssislər hesab edirlər ki, regionda Türkiyənin rolunun sürətlə artması və onun həyata keçirdiyi yeni xarici, o cümlədən regional siyasət kursu indiki vəziyyətdə Azərbaycanın mənafelərinə tam cavab verməyən bəzi geosiyasi proseslərə də təkan verə bilər. Çünki bu ölkənin bir az əvvəl Cənubi Qafqazda sülh və təhlükəsizlik platforması çərçivəsində Ermənistanla yaxınlaşmaq cəhdləri sübut etdi ki, rəsmi Ankaranın "şərait tələb etdikdə" praqmarik formada Azərbaycanın milli maraqlarını "nəzərdən qaçırması" və daha pisi, onları sadəcə unutması ehtimalı realdır. Heç kim bu cür halların nə vaxtsa Türkiyə ərazisindən keçən transmilli enerji ixracı kəmərləri, neft-qaz tarifləri və s. strateji məsələlərlə bağlı özünü göstərməyəcəyinə və yaxud Bakı-Tbilisi-Qars dəmir yolunun təhlükəsizliyinin tam təmin ediləcəyinə zəmanət verə bilməz. Yaxud, 2008-ci ilin avqustunda Rusiya ilə Gürcüstan arasında hərbi əməliyyatlar nəticəsində BTC vasitəsilə neft ixracının dayandırılması və ümumiyyətlə, Gürcüstanın qeyri-sabit ərazi xarakteristikasına malik olması, təkcə Qərb enerji ixracı marşrutundan asılılığın Azərbaycan üçün müəyyən qədər təhlükəli olduğunu söyləməyə əsas yaratdı. Digər tərəfdən, vaxtilə Qərb marşrutunu işə salmaq və mövcud maneələri aradan qaldırmaq üçün Azərbaycan Bakı-Novorossiysk kəmərinin tarifi ilə bağlı Rusiyaya, BTC-nin tarifi ilə bağlı Türkiyəyə ciddi güzəştə getmiş, Gürcüstanın xeyrinə isə hətta BTC kəmərinin Azərbaycan hissəsinin tranzit gəlirlərindən imtina etmişdir. Bu gün kimsə təminat verə bilməz ki, bu ölkələrin biri, yaxud hər üçü tariflərlə bağlı nə zamansa yeni-yeni tələblərlə çıxış etməyəcəklər. Beləliklə, yeni geosiyasi şərait və gələcək perspektivlər Azərbaycandan Türkiyə və Gürcüstanla strateji münasibətlərə xələl gətirmədən və regional münasibətlərin bütün sahələrində bu iki ölkə ilə geosiyasi müttəfiqliyi qoruyub saxlamaqla, öz enerji ixracı marşrutlarını yenidən dəyərləndirməsini, mümkün qədər bu marşrutları şaxələndirməsini, yeni-yeni marşrut və istiqamətlərin, enerji tərəfdaşlarının, satış bazarlarının tapılmasını və s. tələb edir. Bütün bu işlərlə bağlı real tədbirlər, geoiqtisadi axtarışlar bir an belə dayandırılmamalı, vaxtilə əsas işin xatirinə Türkiyə və Gürcüstana gedilmiş tarif güzəştləri məsələlərinə xüsusi diqqət yetirilməli və bu "bəxşişlər" davamlı olaraq onların yadına salınmalı, Azərbaycanın güzəşt limitinin bitməsi, qarşı tərəfdən hər hansı "güzəşt tələbinə" bir də qayıdılmayacağına dair hansısa ikitərəfli və çoxtərəfli dövlətlərarası təminat alınmalıdır.

Göründüyü kimi, Azərbaycan Prezidenti Türkiyə ilə tranzit məsələlərinin həll olunmamasını, bu ölkə tərəfindən qəbul edilməsi mümkün olmayan şərtlərin irəli sürülməsini və s. qeyri-normal məsələləri enerji sahəsində neçə illərdir ki, transmilli dünya ilə reallaşdırılan və perspektivdə reallaşdırılacaq layihənin pozulmasına gətirib çıxara biləcəyi təhlükəsindən bəhs edir. Problemdən çıxış yolu isə müvafiq olaraq yeni-yeni alternativ yolların tapılması və enerji ixracının şaxələndirilməsi ilə əlaqələndirilir.

Hazırda Azərbaycan və dünya mütəxəssisləri bölgənin zəngin neft və qaz məhsullarının daha etibarlı və səmərəli nəqli üçün bir neçə yeni alternativ yollar təklif edir. Bunlardan biri Rusiya marşrutudur. 2009-cu ilin oktyabrında ARDNŞ və Rusiyanın "Qazprom" şirkəti arasında qaz alqı-satqısı ilə əlaqədar imzalanmış müqaviləyə əsasən 2010-cu ildən bazar qiymətləri ilə Rusiyaya ildə 500 milyon kubmetr və daha artıq qaz ixracına başlanmışdır. Perspektivdə bu həcmin Azərbaycanın imkanlarına uyğun olaraq artırılması nəzərdə tutulmuşdur. İkinci marşrut İran istiqamətində fəaliyyət göstərən Astara-İran xəttidir. Mütəxəssislərin fikrinə görə, bir sıra texniki məsələlərin həllindən sonra bu marşrutla İrana kifayət qədər əlavə qaz satışı həyata keçirilə bilər. Üçüncüsü, Azərbaycan nefti və qazı Qara dəniz limanlarından yeni texnologiya əsasında (sıxılma və xüsusi gəmilərlə daşıma) Avropa İttifaqı ölkələrinə çıxarıla bilər. Sonuncu məsələdə Rumıniya və Ukrayna ilə danışıqlar başlanıb və gələcəkdə müvafiq razılaşmalar əldə ediləcəyinə ümid bəslənir. Təbii ki, digər variantlar da nəzərdən keçirilə bilər.

Tariflər məsələsinə gəldikdə, neft müqavilələri və BTC-yə dair sazişlərin imzalandığı illərlə müqayisədə hal-hazırda vəziyyət tam dəyişmişdir. Azərbaycan haqlı olaraq Türkiyəyə ucuz qaz satışına limit tətbiq edir və ixrac tariflərinə ədalətli yanaşılmasını tələb edir. Eyni zamanda, BTC-yə dair sazişlər imzalanan zaman Azərbaycanın kəmərdən əldə edəcəyi tranzit gəlir payını Gürcüstana güzəştə getməsi məsələsinə yenidən qayıtmaq, ən azından mütəmadi olaraq rəsmi Tbilisinin bu haqda yaddaşının itməsinə imkan verməmək də lazımdır. Rusiya və İrana bazar qiymətinə qaz ixracına başlanması və gələcəkdə bu istiqamətlərdə mövcud olan perspektivlər, ixrac və tarif məsələsində Gürcüstan və Türkiyə ilə daha inamla danışmağa və milli maraqlarını təmin etməyə Azərbaycana əlavə imkanlar yaradır.

Beləliklə, düzgün dəyərləndiriləcəyi təqdirdə bütün bu reallıqların, imkan və geosiyasi perspektivlərin bölgədə və dünyada Azərbaycana əlavə geosiyasi üstünlüklər qazandıracağı şübhəsizdir. Bu gün dövlət müstəqilliyi möhkəmlənmiş və hərtərəfli inkişaf edən Azərbaycan həm özünün daxili məsələlərini uğurla həll etmək iqtidarındadır, həm də regionda, beynəlxalq aləmdə geosiyasi, geoiqtisadi və s. maraqlarını qorumağa, öz prinsipial mövqeyini müdafiə etməyə qadirdir. Artıq dünyanın əksər geosiyasi güc mərkəzləri Azərbaycanla bərabərhüquqlu əməkdaşlığa üstünlük verir və yerləşdiyi regionun bütün transmilli məsələlərinin həllində onun rəyini nəzərə alırlar. Bəhs olunan geosiyasi vəziyyət və imkanlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində də Azərbaycanın mövqeyini gücləndirir ki, bu da ölkənin gələcək inkişafı haqqında optimist ovqat yaradır.

**Ermənilərin zaman-zaman azərbaycanlılara qarşı törətdiyi soyqırımı siyasətinin ifşa edilməsi və dünyada effektli antiermәni siyasətinin aparılması**

Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş torpaqlarını geri aytarmasından sonra da ölkə rəsmiləri qarşısında dayanan mühüm geosiyasi və hərbi-geostrateji vəzifələrdən biri azərbaycanlılara qarşı əsrlə reallaşdırılan soyqırımı faktlarırın, Xocalı faciəsinin və s. kimi hadisələrin dünya birliyinə çatdırılması, beynəlxalq ictimaiyyət tərəfindən bu tarixi həqiqətlərin qəbul edilməsi istiqamətində sistemli və daimi iş aparılması, soyqırımı cinayətlərinin səbəbkarlarının beynəlxalq ictimaiyyət qarşısında ifşa olunması, müasir Ermənistan dövlətinin Cənubi Qafqazda yürütdüyü qonşulara qarşı ərazi iddiası və işğalçılıq siyasətinin ifşa edilməsi və s. olacaqdır. Planetar və qlobal informasiya məkanında dünya ermənilərinin təbliğat maşını ilə effektli mübarizə taktikasının hazırlanması və davamlı şəkildə həyata keçirilməsi üçüncü minillikdə Azərbaycan Respublikasının və dünya azərbaycanlılarının qarşısında dayanan əsas strateji və geosiyasi vəzifə olaraq qalacaqdır.

“**Azərbaycan**”.-2011.-1 may.-N 93.-S.2-3.

# İQTİSADİ İNKİŞAFDAN MODERNLƏŞMƏYƏ KEÇİDİ UĞURLA TƏMİN EDƏN LİDER

**Abdin FƏRZƏLİYEV,**
Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü

**Azərbaycanın son illərdə ciddi makroiqtisadi uğurlara imza atması, beynəlxalq əhəmiyyətli layihələrin gerçəkləşməsində aparıcı söz sahibi kimi çıxış etməsi, qlobal maliyyə böhranı şəraitində dinamik artım tempini qoruyub saxlaması dövlət idarəçiliyinin uzun illər ərzində formalaşmış və təcrübədən uğurla çıxmış çevik mexanizmlər əsasında həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Respublikanın bütün problemlərinə milli dövlətçilik kontekstindən yanaşan, cəmiyyətin ümumi inkişaf qanunauyğunluqlarını dəqiq şəkildə qiymətləndirməyi bacaran, eyni zamanda, ictimai həyatın müxtəlif sahələrindəki çatışmazlıq və nöqsanlar haqqında səhih təsəvvürə malik olan Azərbaycan Prezidenti İlham Əliyev praqmatik liderlik keyfiyyətləri sayəsində yeni dövr üçün qarşıda duran prioritet vəzifələri dəqiq şəkildə müəyyənləşdirə bilmişdir.**

## Zamanı qabaqlayan intibah

Bütün həyati əhəmiyyətli sahələrdə yüksək tərəqqiyə imza atan, sürətlə modernləşərək qarşıya qoyduğu strateji hədəflərə doğru inamla irəliləyən müstəqil Azərbaycan bu gün dünya miqyasında həm də özünəməxsus milli inkişaf modeli ilə tanınır. Azərbaycan Prezidenti İlham Əliyevin elmi təmələ əsaslanan iqtisadi siyasəti respublikanın inkişafı prosesində dinamizmi və məqsədyönlülüyü təmin etməklə, hər bir mərhələ üçün qarşıda duran vəzifələrin həllinə real imkanlar açır, cəmiyyətin ümumi potensialının milli məqsədlər naminə səfərbər olunmasına etibarlı zəmin formalaşdırır. Nazirlər Kabinetinin 2011-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası Avratlantik məkana inteqrasiya kursunu uğurla davam etdirən, transmilli enerji və kommunikasiya layihələrinin lokomotivinə çevrilən, modernləşmə yolunda atdığı ardıcıl addımlarla Cənubi Qafqazın ən nüfuzlu ölkəsi kimi tanınan respublikamızın bütün sahələrdə dinamik inkişaf etdiyini təsdiqləyir.

Bir sıra dünya ölkələrində qlobal maliyyə böhranının hələ də davam etməsinə rəğmən, Azərbaycanın rüb ərzində mühüm nailiyyətlərə imza atması - ümumi daxili məhsulun 1,6 faiz, qeyri-neft sektorunun 5,6 faiz, o cümlədən qeyri-neft sənayesinin 9,8 faiz artması ölkədə həyata keçirilən inkişaf strategiyasının səmərəliliyinin əyani göstəricisidir. İqtisadiyyatın bütün sahələrində sistemli islahatların davam etdirilməsi nəticəsində yanvar-mart aylarında əhalinin pul gəlirləri keçən ilin müvafiq dövrünə nisbətən 16,8 faiz, orta aylıq əməkhaqqı 11,7 faiz artmış, adambaşına düşən gəlir inflyasiya səviyyəsini 7,7 faiz üstələmişdir.

Əldə olunan bu yüksək göstəricilər fonunda Azərbaycanın bazar iqtisadiyyatı sisteminə sürətli transformasiyasının spesifik cəhətləri, daha dəqiqi, respublikanın milli inkişaf modeli ilə bağlı müzakirələrə dünyanın nüfuzlu elm mərkəzlərində də kifayət qədər həssaslıqla yanaşılır. Aparılan təhlillər nəticəsində bu da birmənalı etiraf edilir ki, XXI əsrin başlanğıcında Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tapması, regional liderliyini təmin etməsi, iqtisadi sahədə keçid dövrünü uğurla başa vurması məhz ümummilli lider, dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin xalqın rəyinə əsaslanmaqla müəyyənləşdirdiyi uzaqgörən siyasətin nəticəsidir. Böyük strateqin xalqın mənafeyini daim əsas tutmaqla həyata keçirdiyi siyasət 1969-cu ildə İttifaq miqyasında geridə qalan, özünütəminetmə qabiliyyətinə malik olmayan, 1991-1993-cü illərdə - müstəqilliyin ilk illərində isə tamamilə tənəzzülə uğrayan, talana məruz qalan Azərbaycan iqtisadiyyatının yüksəlişini təmin etmiş, respublikamızı davamlı yüksəliş yoluna çıxarmışdır.

## Tarixi zərurətin diktə etdiyi seçim

Tarixə öz möhürünü vurmuş böyük şəxsiyyətlər, ilk növbədə, insanlar üçün cəlbedici görünən mütərəqqi ideyalarla cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşlar. Xalqların milli maraq və mənafeyini maksimum dərəcədə özündə ehtiva edən bu ideyalar, eyni zamanda, onların perspektiv milli inkişafı üçün möhkəm bünövrəyə çevrilmişdir. Həqiqi azadlığa zəmin yaradan iqtisadi müstəqillik də məhz belə fenomen şəxsiyyətlərin milli resursları nəzərə almaqla müəyyənləşdirdiyi inkişaf strategiyasına əsaslanmışdır.

Bu gün istisnasız olaraq bir həqiqət aksiom kimi qəbul olunur ki, müstəqil Azərbaycanın qısa müddətdə sosial-iqtisadi sahədə qazandığı böyük uğurlar ümummilli lider Heydər Əliyevin hələ ötən əsrin 70-80-ci

illərində böyük müdrikliklə formalaşdırdığı iqtisadi resurslardan, sənaye və istehsal potensialından qaynaqlanır. 1969-cu ilin 14 iyulunda Azərbaycan KP MK-nın birinci katibi seçilən Heydər Əliyev ölkəmizin keçmiş İttifaq miqyasında geridə qalmış respublikalardan biri kimi tanınması ilə barışmayaraq vəziyyətin kökündən dəyişdirilməsi üçün qətiyyətli addımlar atmış, mövcud resursları səfərbər etməklə tərəqqi və inkişaf prosesindəki maneələrin aradan qaldırılmasına çalışmış və buna nail olmuşdur.

Sovetlər birliyinin iqtisadi-siyasi və ideoloji cəhətdən ən güclü dövründə Azərbaycana rəhbərlik etmiş ulu öndər Heydər Əliyev vətənpərvər fəaliyyəti ilə həm də xalqımızda tarixi keçmişimizə, milli adət-ənənələrimizə, dilimizə, mədəniyyətimizə bağlılığı gücləndirmiş, yaratdığı zəngin elmi və iqtisadi potensialla milli müstəqilliyimizə əsaslı zəmin formalaşdırmışdır. Bu gün obyektivlik hissini itirməyən tarixçilər də Heydər Əliyev fenomeni ilə milli dövlətçilik ideyaları arasındakı bağlılığın köklərinin 40 il əvvələ təsadüf etdiyini bildirirlər. Ümummilli lider hələ Sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə böyük strateq kimi dövlət müstəqilliyinə zəmin yaradan bir sıra tədbirləri həyata keçirmiş, bu istiqamətdə böyük nailiyyətlər əldə etmişdir.

Fərqli zamanlarda tarixi inkişafın diktə etdiyi ictimai-siyasi şərait hər bir şəxsiyyətin və liderin nəyə qadir olduğunu qabarıq şəkildə üzə çıxarır. Bu mənada ulu öndər ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda cərəyan edən mürəkkəb və ziddiyyətli ictimai-siyasi proseslərə də qətiyyən biganə qalmamış, hələ Naxçıvan Ali Sovetinə rəhbərlik etdiyi vaxtlarda əsl vətənpərvərliklə, lider təəssübkeşliyi ilə milli müstəqilliyin qazanılmasında yaxından iştirak etmişdir.

Vaxtilə bilavasitə şahidi və iştirakçısı olduğum prosesləri göz önündən keçirdikdə əminliklə deyə bilərəm ki, respublikada geniş vüsət almış milli azadlıq hərəkatı ilə eyni dövrdə xalqda milli heysiyyəti, özünüdərki daha da gücləndirən, milli dövlət rəmzlərinə hörmət təlqin edən genişmiqyaslı addımlar da məhz ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi fəaliyyət göstərdiyi və muxtar respublikaya rəhbərlik etdiyi dövrlərdə atılmışdır. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin 1990-cı il 19 yanvar tarixli qərarı ilə Azərbaycanın üçrəngli bayrağı rəsmi olaraq Naxçıvan Ali Sovetinin binası üzərində ucaldılmışdır. Bu qərarın əsl müəllifi isə həmin dövrdə Moskvada yaşamasına baxmayaraq böyük qəlbi yaralı vətən həsrətilə döyünən qüdrətli siyasi xadimin müstəqil dövlətçiliklə bağlı ideyaları, tövsiyələri, ideoloji təşəbbüsləri olmuşdur. Həmin qərar səkkiz gün sonra Azərbaycan SSR Ali Soveti tərəfindən ləğv edilsə də, ulu öndər bu istiqamətdəki vətənpərvər səylərini israrla, əzmlə davam etdirmişdir. Nəhayət, muxtar respublikanın ali orqanının 1990-cı il noyabrın 17-də keçirilmiş sessiyasında Azərbaycanın milli dövlət dirçəlişi prosesinin həyata keçirilməsi məsələsi geniş müzakirə olunmuş, Naxçıvan MSSR-in adından "sovet" və "sosialist" sözləri çıxarılmış, onun Naxçıvan Muxtar Respublikası adlandırılması barədə tarixi qərar verilmişdir. Bu qərarın da müəllifi Azərbaycan və Naxçıvanın xalq deputatı Heydər Əliyev olmuşdur. Sessiyada həmçinin Azərbaycan Xalq Cümhuriyyəti dövründə ucaldılmış üçrəngli bayrağın bərpası, onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması haqqında tarixi qərar qəbul edilmişdir.

Azərbaycan 1991-ci ilin 18 oktyabrında dövlət müstəqilliyini bərpa etsə də, hakimiyyətdə xalqın etimad göstərdiyi, dəstəklədiyi siyasi qüvvənin olmaması ilkin mərhələdə özünü ciddi problem kimi göstərmiş, ölkədə ictimai-siyasi böhranın, iqtisadi tənəzzülün dərinləşməsinə, vətəndaşların hüquq və azadlıqlarının addımbaşına pozulmasına, dövlətçiliyə potensial təhdid olan cinayətkar qruplaşmaların baş qaldırmasına gətirib çıxarmışdı. O zamankı böhranlı və ağır şəraitdə respublikanın gələcəyini düşünən, reallığı adekvat qiymətləndirməyi bacaran nüfuzlu ziyalılarla yanaşı, biz gənclər də xalqın düçar olduğu bəlalardan qurtulması üçün çıxış yolunu məhz ulu öndər Heydər Əliyevin böyük siyasətə qayıdışında görürdük. Ağır vəziyyətdən cana doymuş insanlarla birgə böyük strateq Heydər Əliyevin hakimiyyətə gəlişini əngəlləmək üçün Konstitusiyaya daxil edilmiş qondarma yaş senzinin ləğvi üçün respublikanın müxtəlif bölgələrində mitinqlər təşkil edir, böyük strateqin yenidən böyük siyasətə qayıdışını təkidlə istəyirdik.

Respublikanın mütərəqqi fikirli ziyalıları 1992-ci ilin ortalarından etibarən yeni siyasi mübarizə yolu seçərək ümummilli liderin rəhbərliyi ilə yeni partiya yaratmaq qərarına gəldilər. Həmin ziyalılar oktyabr ayının 16-da ulu öndər Heydər Əliyevə Yeni Azərbaycan Partiyasının (YAP) yaradılması xahişi ilə müraciət etdilər. Oktyabrın 24-də ulu öndərin ziyalıların müraciətinə verdiyi müsbət cavab isə Heydər Əliyevin yaranmış vəziyyətdə böyük məsuliyyətin altına girməkdən çəkinməyən, cəsarətli və qətiyyətli lider olduğunu bir daha təsdiqlədi. Cavab məktubunda ziyalıların haqlı narahatlığını və həyəcanını bölüşən Heydər Əliyev yaranmış vəziyyətdən çıxış yollarını da böyük müdriklik və uzaqgörənliklə göstərirdi.

Tarix sübut edir ki, dövlət və cəmiyyət həyatında rol oynayan, demokratik, hüquqi, sivil, dünyəvi dövlətçiliyin təməl prinsiplərindən, əsas atributlarından sayılan siyasi partiyalar, adətən, zərurətdən və milli tələbatdan yaranırlar. 1992-ci il noyabrın 21-də Naxçıvanda 550-yə yaxın nümayəndənin iştirakı ilə təsis qurultayını keçirmiş YAP qısa müddətdə ulu öndər Heydər Əliyevin rəhbərliyi altında formalaşaraq fəaliyyətə

başlamış, cəmiyyətdə özünə möhkəm dayaqlar tapan güclü siyasi təşkilata çevrilmiş, qarşıya qoyduğu hədəflərə doğru əzmlə irəliləmişdir.

Həmin dövrün mürəkkəb ictimai-siyasi hadisələrinin canlı şahidi olaraq bu qənaətdəyəm ki, Azərbaycanda merkantil maraqlar ətrafında formalaşmış bir sıra qondarma siyasi qurumlardan fərqli olaraq Yeni Azərbaycan Partiyası ayrı-ayrı şəxslərin deyil, bütövlükdə tarixi zərurəti dərk edən yüz minlərlə vətənpərvər insanın yüksək mübarizliyi nəticəsində yaranmış siyasi partiyadır. Yarandığı gündən müstəqil Azərbaycanda hüquqi-demokratik, dünyəvi dövlət və vətəndaş cəmiyyəti yaratmaq uğrunda fəal mübarizəyə atılan YAP-ın siyasi partiyalar tarixində nadir hadisə sayılan qısa zaman kəsiyində - təxminən 7 ay sonra Azərbaycanda hakimiyyətə gəlməsi də məhz ulu öndər Heydər Əliyevin parlaq şəxsiyyətinə olan yüksək ictimai inamın, etimadın nəticəsi olmuşdur.

Həmin dövrdə mənim də daxil olduğum gənclər qrupu yeni yaranmış partiyanın təbliğatçıları kimi ictimaiyyət arasında fəal təşviqat kampaniyası aparırdıq. Qeyd edim ki, həmin çətin dövrdə - o vaxtkı hakimiyyətin repressiyalarına, təqib və maneələrinə baxmayaraq insanlar kütləvi şəkildə partiyamıza daxil olur, ideyalarımızı bölüşürdülər. Bizə çoxsaylı müraciətlər olur, vətənin taleyindən, xalqın müqəddəratından narahat olan hər bir layiqli vətəndaş Heydər Əliyev partiyasına daxil olmağı özünə borc bilirdi.

Hər bir siyasi partiyanın gücü və qüdrəti təkcə elan etdiyi məqsəd və vəzifələrin, ideoloji prinsiplərin cəlbediciliyi ilə deyil, həm də qarşıya qoyduğu vəzifələri real həyatda tətbiq etmək imkanı ilə ölçülür. Bu mənada Azərbaycan iqtidarının cəmiyyətdəki həlledici uğurlarını təmin edən başlıca amillərdən biri də onun qarşıya qoyduğu vəzifələri gerçəkləşdirmək potensialı ilə şərtlənmişdir. İqtidarın ötən 18 ilə yaxın müddət ərzində həlledici nəticələrə imza atması, dövlətçiliyi xaos və anarxiya burulğanından davamlı tərəqqi və yüksəliş yoluna çıxarması, öz potensialını səmərəli şəkildə realizə etməsi, ilk növbədə, ümummilli lider Heydər Əliyevin fenomenal liderlik və idarəçilik keyfiyyətləri sayəsində mümkün olmuşdur. Müstəqil Azərbaycanın bu gün əldə etdiyi böyük nailiyyətlər də məhz ulu öndər Heydər Əliyevin, o cümlədən onun yadigarı olan YAP-ın irəli sürdüyü inkişaf konsepsiyasına əsaslanır.

**Milli inkişaf strategiyasının banisi**

1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin böyük müdrikliklə irəli sürdüyü inkişaf modelinin uğurunu şərtləndirən ən mühüm amillərdən biri demokratikləşməyə və iqtisadi modernləşməyə xidmət edən islahatların paralel şəkildə aparılması idi. Başqa sözlə, ulu öndər yaxşı bilirdi ki, iqtisadi inkişaf və demokratikləşmə prosesləri biri-birini tamamlamalı, təkamül xarakteri daşımalı, ən əsası, ictimai şüurda obyektiv dərk olunmalıdır.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev ideya müəllifi olduğu "İnkişafın Azərbaycan modeli" kitabının ön sözündə haqlı olaraq yazır: "Kifayət qədər mürəkkəb tarixi siyasi şəraitdə dövlət müstəqilliyini əldə edən Azərbaycan yalnız ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmasından sonra həyata keçirilən islahatlar, çoxvektorlu xarici siyasət sayəsində sürətli sosial-iqtisadi inkişaf yoluna çıxmış, dünya iqtisadi sisteminə inteqrasiyanı təmin etmişdir".

Azərbaycanın o zamankı məhdud imkanlarını nəzərə alan Heydər Əliyev iqtisadiyyatın bütün sahələrinin paralel inkişafının qeyri-mümkünlüyünü önə çəkərək bu sahədə ciddi dönüşə nail olmaq üçün respublikanın zəngin karbohidrogen ehtiyatlarından səmərəli istifadəni vacib saymışdır. Ümummilli lider neft sektoruna xarici sərmayələrin cəlb edilməsi istiqamətində ciddi addımların atılmasını təmin etmiş, 1994-cü ilin 20 sentyabrında "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmuşdur. Xəzər hövzəsində beynəlxalq əməkdaşlığın əsasını qoymuş bu müqavilənin imzalanması ilə respublikamızın gələcək inkişafının fundamental bünövrəsi qoyulmuşdur. Qərb şirkətlərinin Xəzər hövzəsində külli miqdarda investisiya yatırması Azərbaycana ən müasir innovasiya və informasiya texnologiyalarını gətirməklə yanaşı, demokratik proseslərin, hüquqi-siyasi islahatların sürətlənməsinə, vətəndaş cəmiyyətinin formalaşmasına, bir sözlə, sosial-iqtisadi modernləşməyə ciddi təkan vermişdir.

İqtisadi islahatların ardıcıl və sistemli şəkildə aparılmasının tərəfdarı kimi çıxış edən Heydər Əliyev torpaq islahatı və dövlət mülkiyyətinin özəlləşdirilməsi prosesini də uğurla başa çatdırmışdır. Ümummilli lider yaxşı başa düşürdü ki, dövlət mülkiyyətinin xalqın mənafeyinə uyğun formada özəlləşdirilməsi sərbəst bazar rəqabəti prinsiplərinin, xüsusi mülkiyyətçiliyin bərqərar olması, habelə milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyası, eləcə də insanların şüurunda, həyat tərzində əsaslı dəyişiklik deməkdir. Ölkədə həyata keçirilmiş özəlləşdirmə prosesinin məqsədi də məhz hər bir vətəndaşın iqtisadi islahatlarda şəxsi marağını təmin etmək, əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq, sağlam rəqabətə əsaslanan istehsal üçün şərait yaratmaq olmuşdur.

İqtisadiyyatın bütün sahələrini əhatə edən özəlləşdirmə prosesi müstəqil respublikamızda bazar iqtisadiyyatı meyarlarının sürətlə formalaşmasına, ölkənin xarici iqtisadi əlaqələrinin yüksəlməsinə ciddi zəmin yaratmışdır.

Özəlləşdirmə prosesi ilə paralel respublikada həyata keçirilən struktur islahatları iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafına, o cümlədən yerli və xarici investisiyaların, müasir texnologiyaların cəlbi yolu ilə rəqabət qabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına xidmət etmişdir. Ümummilli lider respublika iqtisadiyyatının keyfiyyətcə yeni mərhələsində məhz özəl sektoru sosial-iqtisadi inkişafın başlıca təminatçısı kimi dəyərləndirmiş, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışmışdır. 1997-2002-ci illərdə respublikada sahibkarlığın inkişafı üçün zəruri maliyyə təminatı yaradılmış, süni maneələrin aradan qaldırılması üçün mükəmməl qanunvericilik bazası formalaşdırılmış, fəaliyyətin bu növü ilə məşğul olanların hərtərəfli stimullaşdırılması məsələsi diqqət mərkəzində saxlanılmışdır. Milli sahibkarlar ordusu formalaşmış, ümumi daxili məhsulda özəl sektorun xüsusi çəkisi 75 faizə çatmışdır.

Ulu öndər Heydər Əliyevin ölkənin gələcək müqəddəratı ilə bağlı qarşıya qoyduğu təxirəsalınmaz vəzifələrdən biri də Azərbaycan regionlarının tarazlı və davamlı inkişafı olmuşdur. Dayanıqlı inkişaf baxımından regionların imkanlarından maksimum səmərəli istifadə edilməsi əsas hədəf kimi qarşıda dururdu. Əlbəttə, regionların sosial-iqtisadi inkişafının səviyyəsi və səmərəliliyi, habelə aralarında zəruri tarazlığın yaradılması məsələlərinin həlli o zaman nisbətən mürəkkəb və çətin idi. Çünki sovet hakimiyyəti illərində məhsuldar qüvvələrin regionlarda inkişafında xeyli müsbət irəliləyişlər baş versə də, bu proses qənaətbəxş səviyyəyə çatdırılmamışdı. Yəni, müstəqil Azərbaycanda regionların sosial-iqtisadi inkişafı prosesinin ardıcıl mərhələlər üzrə həyata keçirilməsi tələb olunurdu. Bu mənada, demək olar ki, regionların sosial-iqtisadi inkişafına hazırlıq mərhələsi 1995-ci ildən 2003-cü ilə qədərki dövrü əhatə edir. Məhz bu dövrdə bazar münasibətlərinin geniş vüsət alması, liberallaşma və çoxcəhətli iqtisadi islahatların aparılması, xüsusən, özəlləşdirmə proqramlarının uğurla həyata keçirilməsi, pul-kredit və maliyyə sisteminin yenidən qurulması, milli sahibkarlar sinfinin formalaşması regionların inkişafına əlverişli zəmin yaratmışdır.

**Milli inkişafda keyfiyyətcə yeni mərhələ başladı**

İnkişaf prosesi - hər bir ölkədə ictimai mənafelərə xidmət edən mütərəqqi ideya və proqramların xalqın iradəsinə söykənən hakimiyyət vasitəsilə reallaşdırılmasına əsaslanan mürəkkəb, zəncirvari və iyerarxik mexanizmdir. Təkcə dövlətin deyil, ümumən hər bir vətəndaşın, fərdin gələcək taleyini şərtləndirən bu pozitiv proses ilk növbədə, xalqına bağlı milli liderlərin praqmatik və reallığa adekvat fəaliyyətindən asılıdır. Cəmiyyətdəki çoxluğun maraq və mənafeyinə uyğun siyasət yeritməyən siyasi qüvvənin ictimai dəstək qazanmasının qeyri-mümkünlüyünü isə xüsusi vurğulamağa ehtiyac yoxdur.

Əminliklə demək olar ki, Azərbaycan Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi sosial-iqtisadi islahatlar respublikamızın dinamik sosial-iqtisadi inkişafını təmin etmiş, modernləşmə kimi mürəkkəb prosesin etibarlı iqtisadi bazisini formalaşdırmışdır. Dövlət başçısı özünəməxsus siyasi məharətlə dövlətə rəhbərlik fəaliyyətinin bütün məqamları arasında qırılmaz bağlılığa, məntiqi ardıcıllığa nail olmuş, Azərbaycanda dövlət idarəçiliyinin özünəməxsus mükəmməl sistemini formalaşdırmış, bu sistemin xalqın mənafeyinə uyğun intensiv fəaliyyətini təmin etmişdir. Dövrün tələblərinə uyğun formalaşdırılmış bu sistem respublikamızın sürətli sosial-iqtisadi tərəqqisinə, siyasi sabitliyə, vətəndaş sülhünə, insanlarımızın maddi rifah halının yaxşılaşmasına, ölkəmizdə demokratiyanın inkişafına yönəlmiş mühüm qərarlara, habelə bu qərarların icrasına xalqla birgə nəzarət formuluna əsaslanır.

"Bizim iş üslubumuz belədir: problemi müəyyən etmək, onun həlli üçün lazım olan yolları müəyyən etmək, axtarmaq və tədbirlər planı hazırlamaq. Bunu etmək üçün artıq bizim maliyyə imkanlarımız da var" - deyən cənab İlham Əliyev davamlı və tarazlı inkişafın təmin edilməsi baxımından bir sıra sahələrdə uzun illər boyu həllini gözləyən problemlərin dəqiqliklə müəyyənləşdirilməsi, habelə mövcud resursların həmin problemlərin həllinə yönəldilməsi üçün kompleks proqramların hazırlanaraq həyata keçirilməsini, icra prosesinin diqqətdə saxlanılmasını vacib saymışdır.

İnkişaf etmiş ölkələrin təcrübəsi birmənalı şəkildə təsdiqləyir ki, demokratik inkişaf və modernləşmə yalnız yüksək maddi rifah şəraitində özünə möhkəm ictimai dayaqlar tapa bilir. Təsadüfi deyildir ki, Prezident İlham Əliyevin fəaliyyətində iqtisadiyyat həyata keçirilən islahatların əsas ağırlıq mərkəzini, nüvəsini təşkil etmişdir. Bu da kifayət qədər əsaslı yanaşma olaraq Azərbaycanın dövlət müstəqilliyinin iqtisadi bazisini möhkəmlətmək, cəmiyyətin davamlı inkişafı üçün zəmin hazırlamaq məqsədindən irəli gəlmişdir. İnkişaf etmiş dövlətlərin təcrübəsi də təsdiqləyir ki, iqtisadi sistemin sabitliyi labüd surətdə demokratikləşməyə, ictimai həyatın bütün sahələrinin modernləşməsinə aparır. Dövlət başçısının iqtisadi siyasəti nəticəsində son illər vətəndaşların

yaşayış tərzində, sosial rifah halında özünü qabarıq göstərməyə başlayan müsbət keyfiyyət dəyişiklikləri, hər bir hüquqi dövlətdə ictimai-siyasi sabitliyin başlıca təminatçısı sayılan orta təbəqənin - milli sahibkarlar ordusunun mövqelərinin ildən-ilə möhkəmlənməsi ümumbəşəri xarakter daşıyan demokratik-hüquqi normaların ictimai rəydə düzgün dərk olunmasına, qavranılmasına və qiymətləndirilməsinə əlverişli şərait formalaşdırır.

Bütün bunlara nəzərən Azərbaycanın özünəməxsus inkişaf modelinin formalaşması ilə bağlı obyektiv qənaət isə qısa zamanda əldə olunmuş sosial-iqtisadi nailiyyətlərlə şərtlənir. Ümumi şəkildə ifadə etsək, son 8 ildə milli iqtisadiyyat 3 dəfə, büdcə xərcləri 12 dəfə, hərbi xərclər 20 dəfə, valyuta ehtiyatları 20 dəfə artmışdır. Əgər 2003-cü ildə Azərbaycanın dövlət büdcəsi cəmi 1,3 milyard manat idisə, 2011-ci il üçün bu rəqəm 12 milyard 61 milyon manat təşkil edir. Bu dövrdə Azərbaycanda maaş və pensiyalar orta hesabla 5-6 dəfə artmış, yoxsulluq 4 dəfədən çox azalaraq 49 faizdən 9 faizə enmiş, 900 mindən çox yeni iş yeri açılmışdır.

Fəaliyyətini hər zaman ictimai inam və etimadı doğrultmaq məramı üzərində quran, hakimiyyətin mütəmadi olaraq gördüyü işlərlə bağlı xalqa hesabat verməsini mütərəqqi ənənə kimi formalaşdıran Azərbaycan Prezidenti İlham Əliyev bunu həm də şəffaf, səmərəli və demokratik idarəetmənin mühüm formulu hesab edir. Artıq bir neçə ildir ki, bu cür hesabatlar həm də konkret dövr ərzində əldə edilmiş nailiyyətlərin qiymətləndirilməsi, müstəqil dövlətimizin əldə etdiyi uğurların ictimaiyyətə düzgün, obyektiv çatdırılması, mövcud problemlər ətrafında müzakirələrin aparılması, bu problemlərin həlli yollarının tapılması üçün səmərəli vasitəyə çevrilmişdir

Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Azərbaycanın kursu: sabitləşmədən modernləşməyə doğru" əsərində haqlı olaraq göstərir ki, Azərbaycanda təkamül yolu ilə gerçəkləşən, tədrici xarakter daşıyan sistem dəyişkənliyi, habelə modernləşməyə keçid, ilk növbədə, idarəçiliyə yeni ruh və müasirliyin, habelə innovativ yeniliklərin gətirilməsi prinsipinə əsaslanmalıdır. Respublikamız elə inkişaf mərhələsinə çatmışdır ki, hazırda ölkə iqtidarı da idarəetməni tamamilə yeni prinsip və metodlar üzərində qurmağa çalışır. Sabitləşmədən modernləşməyə aparan bu yol eyni zamanda, cəmiyyətin müxtəlif təbəqələrinin mənafelərinin daha etibarlı müdafiəsi, ictimai qüvvələrin tarazlığının qorunub saxlanılması, cəmiyyətə xas mülki, demokratik, özünüidarə meyillərinin adekvat realizə etmək imkanlarını genişləndirir.

**Sosialyönümlü inkişaf Nərimanov rayonunda da qabarıq duyulur**

Bu gün milli iqtisadi inkişaf modeli ilə tanınan Azərbaycan həm də sovet dövründən qalmış köhnə infrastrukturdan tamamilə azad olaraq iqtisadi-mədəni səviyyədə modernləşir, ölkənin hər bir guşəsində müasir tələblərə cavab verən abadlıq-quruculuq işləri aparılır. Bakıya daxilən bağlı olan cənab İlham Əliyev ötən 8 ildə şəhərin millilik və müasirliyin sintezi əsasında hərtərəfli inkişaf etməsi, təmizliyi, gözəlliyi, yaşıllığı ilə göz oxşaması üçün kompleks tədbirlər həyata keçirir. Paytaxtın yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsindən tutmuş ekoloji tarazlığın qorunmasına, yaşıllaşdırma işlərinədək hər bir işi şəxsi nəzarətdə saxlayan, tikinti-abadlıq, quruculuq prosesi ilə yerindəcə tanış olan dövlət başçısının xüsusi diqqət və qayğısı ilə ötən 8 ildə Bakı rayon və qəsəbələrinin görkəmi inanılmaz dərəcədə dəyişmiş, müasirləşmişdir.

Bu gün Azərbaycanın ən müxtəlif bölgələrində müşahidə olunan abadlıq və inkişaf paytaxtın Nərimanov rayonunda da özünü qabarıq göstərir. Son illərdə müasir tikinti-inşaat meyarları əsasında, yüksək estetik zövqlə həyata keçirilən, vətəndaşlarda yüksək razılıq doğuran genişmiqyaslı abadlıq-quruculuq tədbirləri Nərimanov rayonunun simasını əsaslı dərəcədə dəyişmişdir. Mühüm inşaat layihələrinin uğurla gerçəkləşdirilməsi nəticəsində rayonun küçə və meydanları, prospektləri, parkları, istirahət məkanları, yolları abadlaşmış, əksər yaşayış və inzibati binaların fasadları müasir görkəm almışdır.

Dövlət başçısının birbaşa təşəbbüsü və himayəsi sayəsində son dövr ərzində Nərimanov rayonunda mühüm obyektlərin tikintisinin təməli qoyulmuş və inşası uğurla başa çatdırılmışdır. Ümumiyyətlə götürsək, müxtəlif tədbirlərdə, açılışlarda, təməlqoyma mərasimlərində iştirakla bağlı 2005-2010-cu illərdə ölkə Prezidenti 30 dəfə Nərimanov rayonu ərazisində olmuş, 25 açılış və 2 təməlqoyma mərasimində iştirak etmiş, tanışlıq xarakterli 3 tədbirə qatılmışdır. Prezident İlham Əliyevin birbaşa təşəbbüsü ilə təməli qoyulan, şəxsi nəzarəti altında inşa edilən bu obyektlər Nərimanov rayonunun simasını daha da müasirləşdirmiş və gözəlləşdirmiş, əhalinin yaşayış səviyyəsinin, sosial rifahının yüksəldilməsində mühüm rol oynamışdır. Dövlətimizin başçısı Nərimanov rayonuna və sakinlərinə son beş il ərzində çoxsaylı səhiyyə və təhsil müəssisələri, yol ötürücüləri və yol qovşaqları, piyada keçidləri, parklar, infrastruktur obyektləri, istehsalat müəssisələri, yeni inzibati binalar bəxş etmişdir.

Prezident İlham Əliyev yalnız 2010-cu ildə Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Departamentinin İdarəetmə Mərkəzinin, Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının mərkəzi qərargahının, Mətbuat Şurasının yeni inzibati binasının, Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə inşa

olunmuş məktəb kompleksinin, K.Rəhimov küçəsinin F.X.Xoyski prospekti və Təbriz küçəsi ilə kəsişmələrində yeraltı yolötürücülərinin açılışlarında iştirak etmişdir. Xüsusi vurğulamaq istərdim ki, rayon ərazisində tikintisi başa çatmaqda olan Heydər Əliyev Mərkəzinin unikal memarlıq üslubundakı inzibati binası bütövlükdə müstəqillik tariximizin ən möhtəşəm tikililərindən biri olacaqdır.

Rayondakı inkişaf prosesindən danışarkən Heydər Əliyev Fondunun misilsiz qayğısından, böyük himayədarlığından danışmamaq mümkün deyildir. Çünki rayonumuzda bu sahədə görülən işlərdə dövlətin ən yaxın yardımçısı məhz ulu öndərin adını şərəflə daşıyan bu fond olmuşdur. Təsadüfi deyildir ki, fondun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Azərbaycan vətəndaşlarının, xüsusən də, Nərimanov rayonu sakinlərinin inam ünvanına, mərhəmət və xeyirxahlıq rəmzinə çevrilmişdir. Talassemiya Mərkəzinin, Psixonevroloji Uşaq Evinin, kor və zəif görən uşaqlar üçün musiqi məktəbinin, məktəb kompleksinin, Zərifə Əliyeva adına uşaq bağçasının, parkların və digər bu kimi orbyektlərin Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Nərimanov rayonu ərazisində istifadəyə verilməsini sakinlərimiz böyük qədirbilənlik və sonsuz minnətdarlıqla xatırlayırlar.

**Bütün bunlar bir daha göstərir ki, 2003-cü ilin 15 oktyabrından ötən 8 ildə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında aparılan hüquqi-siyasi və iqtisadi islahatlar postkeçid mərhələsində ölkədə modernləşmə xəttinin uğurla davam etdirilməsi üçün real zəmin yaratmışdır. Vətəndaş mənafeyini önə çəkən iqtisadi islahatların dərinləşdirilməsi, liberal dəyərlərin, qanunçuluğun möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının təminatı sisteminin təkmilləşdirilməsi Azərbaycan vətəndaşının firavan yaşayışını təmin edir. Respublikamız qloballaşan dünyanın tərkib hissəsi kimi uğurla irəliləyir, yüksək iqtisadi inkişaf tempinə adekvat olaraq demokratik dəyərləri mənimsəyir. Ölkəmizin ildən-ilə artan sosial-iqtisadi imkanları deməyə əsas verir ki, Azərbaycan modernləşmə mərhələsini də tezliklə başa vuraraq dünyanın ən inkişaf etmiş dövlətləri ilə eyni sırada dayanmaq imkanı əldə edəcəkdir.**

“**Azərbaycan**”.-2011.-3 may.-N 94.-S.5.

## HEYDƏR ƏLİYEV İQTİSADİ MODELİ MÜASİR TƏRƏQQİNİN ƏSASIDIR

**Yaqub EYYUBOV,**
Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

**Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi ən nadir və sanballı şəxsiyyətlərdən biri, qüdrətli dövlət xadimi, dünya şöhrətli siyasət qrossmeysteri və əvəzedilməz lider - Heydər Əlirza oğlu Əliyev Azərbaycan tarixinin parlaq səhifələrini yazaraq ölkənin salnaməsində dərin iz qoymuş, sözün həqiqi mənasında, onu qurub-yaratmışdır. Bu böyük şəxsiyyət titanik zəhməti, tükənməz enerjisi, işıqlı zəkası və dəmir iradəsi ilə daim xalqının, vətəninin, dövlətinin xidmətində dayanmışdır. Həyatımızın ən çətin, mürəkkəb məqamlarında Heydər Əliyev özünün xilaskarlıq missiyası ilə insanlarımızın köməyinə çatmışdır.**

Müasir Azərbaycan tarixinin bir çox parlaq səhifələri, heç şübhəsiz ki, Heydər Əliyevin adı ilə, onun irimiqyaslı və çoxşaxəli dövlətçilik fəaliyyəti ilə bağlıdır. Respublikaya otuz dörd illik rəhbərliyi dövründə Azərbaycanın bütün sahələr üzrə inkişafında, xüsusən iqtisadiyyatın dirçəlişində, sosial vəziyyətin yaxşılaşdırılmasında, dövlət müstəqilliyinin möhkəmləndirilməsində onun xidmətləri ölçüyəgəlməzdir. Heydər Əliyev hələ sovet hakimiyyəti illərində var qüvvəsi ilə Azərbaycanın gələcək inkişafı, tərəqqisi, xalqın həyat səviyyəsinin yaxşılaşdırılması və cəmiyyətin firavanlığı naminə yorulmaq bilmədən çalışmışdır.

Ötən əsrin 60-cı illərində Azərbaycan sosial-iqtisadi inkişaf cəhətdən bir çox müttəfiq respublikalardan geridə qalırdı. Totalitarizmin ağır nəticələri respublikamızın həyatında dərin izlər buraxmışdı. Respublikaya rəhbərlik etməyə başladığı ilk dövrlərdə Heydər Əliyev ölkənin keçdiyi yolu dərindən təhlil edərək buraxılan səhvləri, sosial-iqtisadi geriliyin səbəblərini müəyyənləşdirmişdir. Yalnız bundan sonra Heydər Əliyev dühası vəziyyətdən çıxış yolu kimi uzunmüddətli və məqsədyönlü sosial-iqtisadi inkişaf strategiyasının konseptual əsaslarını hazırlamış və mərhələlərlə onun həyata keçirilməsinə başlamışdır. Nəticədə 1969-cu ildən sonra Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan elə bir dirçəliş yolu keçmişdir ki, dünyanın bir çox ölkələrində bundan ötrü bəlkə də əsrlər lazım gələrdi. Bu dövr ərzində Azərbaycanda güclü sənaye potensialı yaradıldı, aqrar sektor inkişaf etməyə başladı, energetika sistemi yenidən quruldu, çoxlu sayda infrastruktur və sosial obyektlər yaradıldı. Xüsusən, karbohidrogen ehtiyatlarından səmərəli istifadə olunması Azərbaycanın hərtərəfli inkişafında mühüm rol oynadı. Ümumiyyətlə, neft amili ulu öndərin hakimiyyətinin bütün mərhələlərində uzaqgörən, düşünülmüş iqtisadi və siyasi xətt olaraq daim ön planda durmuşdur. Azərbaycan dünyada neft ölkəsi kimi tanınsa da, vaxtilə bu təbii sərvətdən lazımınca bəhrələnməmişdi. Yalnız Heydər Əliyevin rəhbərliyə gəlişindən sonra xalq öz "qara qızıl"ından bəhrələnmək hüququ əldə etdi və ölkənin gələcək inkişafı üçün etibarlı iqtisadi zəmin yarada bildi...

Odur ki, ulu öndər Heydər Əliyev tarixə həm də müstəqil Azərbaycanın yeni neft strategiyasının müəllifi kimi daxil oldu. Bu böyük şəxsiyyət Azərbaycan xalqının gələcəyini düşünərək hələ ötən yüzilliyin 70-80-ci illərindən inkişafın strateji əsasları kimi neftdən istifadə məsələsini önə çəkərək neft-qazçıxarma sənayesinin tamamilə yenidən qurulması və modernləşdirilməsi ideyasını irəli sürmüş və onun reallaşmasını təmin etmişdir. Yeni neft yataqlarının kəşfiyyatı, qazılması, işlənməsi, mütərəqqi qazma texnologiyalarından istifadə olunması məhz onun şəxsi təşəbbüsləri və rəhbərliyi ilə həyata keçirilmişdir. Respublikada nəhəng neftayırma kompleksinin yaranması, müasir neft donanmasının, sovetlər birliyində analoqu olmayan və ildə 60 min ton metal konstruksiya istehsal edən Bakı Dərin Özüllər Zavodunun qurulması məhz Heydər Əliyevin təşəbbüsü və iradəsi sayəsində meydana gəlmişdir.

Bir neçə onilliklər bundan qabaq yuxusuz gecələr və böyük əziyyətlər hesabına yaradılmış bu potensialın ölkə iqtisadiyyatı üçün nə qədər həlledici əhəmiyyətə malik olmasını biz bu gün tam aydınlığı ilə dərk edirik. Ulu öndər özü çox-çox sonralar həmin illəri xatırlayaraq belə demişdir: "...1970-ci illərdə görülən işlər, yaradılan böyük iqtisadiyyat, sənaye potensialı və neft sənayesi sahəsində görülən işlər Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əsasıdır. Bu gün bəyan etmək istəyirəm ki, o illərdə bu işləri görərkən mən məhz Azərbaycanın gələcəyini, bugünkü müstəqilliyini düşünürdüm. O işləri görən zaman mən əmin idim ki, vaxt gələcək onlar Azərbaycanın sərbəst, müstəqil yaşaması üçün əsas yaradacaqdır".

Azərbaycanı böyük inam və bacarıqla idarə edən dahi strateqin rəhbərliyi altında 1970-1980-ci illərdə ölkə iqtisadiyyatının qocaman sahələrindən olan neft emalı sənayesinin əsaslı surətdə yenidən qurulması sayəsində Yeni Bakı Neft Emalı Zavodunda neftin ilkin emalı üçün ELOU-AVT-6 qurğusunun, katalitik reforminq və katalitik krekinq qurğularının, yağların hidrotəmizlənməsi və neftin emalı üzrə digər yeni qurğuların yaranması mümkün olmuşdur. Bu isə texnoloji prosesləri xeyli təkmilləşdirməyə, neftin emal dərinliyini artırmağa, buraxılan benzinin və sürtkü yağlarının keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa imkan verdi. Neft

sənayesinə böyük diqqətin və qayğının nəticəsində 1980-1982-ci illərdə "Şelf-1" və "Şelf-2" üzən qazma qurğuları hazırlanaraq Xəzər neftçilərinin istifadəsinə verildi.

Aparılan dərin təhlillər göstərirdi ki, tikinti sənayesinin zəif unkişaf etməsi səbəbindən Azərbaycan Respublikasında istehsal olunan milli gəlirdən tam istifadə yox idi. Hətta keçmiş SSRİ Dövlət Plan Komitəsindən böyük çətinliklə alınan əsaslı vəsait qoyuluşu limitlərindən belə lazımınca istifadə oluna bilinmirdi. Buna görə də Heydər Əliyevin xüsusi tapşırığı ilə qısa vaxt ərzində respublikada bir neçə nəhəng dəmir-beton zavodu və tikinti materialları istehsal edən müəssisə tikildi. Çoxlu sayda inşaat texnikası, maşın və mexanizmlər alındı. İxtisaslaşdırılmış yeni sifarişçi təşkilatlar yaradıldı. Nəticədə Heydər Əliyevin bilavasitə şəxsi nəzarəti altında respublikada kütləvi surətdə məktəblər, xəstəxanalar, uşaq bağçaları, səhiyyə ocaqları, mədəniyyət evləri, şahmat klubları, kitabxanalar, yollar və digər obyektlər tikilməyə başladı.

Bütün bunlar ümummilli liderin bilavasitə özünün hazırladığı sosial-iqtisadi inkişafın uzunmüddətli strategiyasının ayrı-ayrı epizodları olsa da, bir yerə toplandıqda rəhbərin nəhəng qurucu təfəkkürünün, unikal yaradıcı təxəyyülünün və yorulmaz fəaliyyətinin miqyasını göstərən amillər kimi heyrətamizdir.

Azərbaycanın inkişafı ilə bağlı Heydər Əliyevin düşündüyü strateji xəttin əsas istiqamətlərindən biri də respublikanı çoxsahəli sənaye ölkəsinə çevirmək yolu idi. Əslində, totalitar sistemdə nəhəng sovet sənayesinin bütün strukturları tam şəkildə ittifaq tabeliyində olduğu halda, Heydər Əliyev fitri bacarıqla əyalət sənayesinin inkişafına yönələn xüsusi qərarların təsdiqinə nail ola bilirdi. Bunun sayəsində elmi-texniki tərəqqinin son yeniliklərini tətbiq etməklə Azərbaycanda müasir maşınqayırma, kimya, neft kimyası və elektron sənayesi, əlvan və qara metallurgiya, yüngül, yeyinti və emal sənayesi müəssisələrinin yaradılması, elektroenergetika, nəqliyyat kompleksi və ümumiyyətlə, sənaye infrastrukturunun qurulması üçün respublikaya böyük məbləğdə əsaslı vəsait yönəldilirdi.

Dövlət idarəçiliyində Heydər Əliyevin özünəməxsus dəst-xətti, prinsipiallığı, proseslərə müntəzəm şəxsi nəzarəti, tələbkarlığı və obyektivliyi tezliklə öz nəticəsini verirdi. 1970-1980-ci illərdə Azərbaycan iqtisadiyyatının ayrı-ayrı sahələri sürətli inkişaf yoluna qədəm qoydu. Sənaye məhsulunun artım sürətinə görə Azərbaycan sovetlər birliyində öncül yerlərdən birinə cıxdı, 1985-ci ildə isə artıq əsas istehsal fondlarının dəyəri 1969-cu illə müqayisədə iki dəfə artdı, hər bir ölkənin milli sərvətinin bir hissəsi olan əsas fondların 69 faizi tamamilə yeniləşdi. Ulu öndər sanki Azərbaycanın gələcək müstəqillik günlərini görür və dirçəlişin təməlini qururdu.

Çox qısa bir zamanda, 1976-1982-ci illər ərzində Azərbaycanda 15 mühüm sənaye müəssisəsi tikilib istifadəyə verildi, 12 iri müəssisənin istehsal gücü artırıldı, buraxılan məhsulun nomenklaturu xeyli genişləndi, fəaliyyətdə olan bir cox maşınqayırma zavodları texniki cəhətdən müasirləşdirildi. Böyük istehsal sahələrinə malik elektrotermik və elektroqaynaq avadanlıqları zavodları, elektrik lyüminissent lampaları zavodu, Bakı məişət soyuducuları zavodu, Sumqayıt kompressorlar zavodu və başqa müəssisələr tikilib istifadəyə verildi. Xüsusilə, Heydər Əliyevin şəxsi təşəbbüsü və daimi nəsarəti altında Bakı Məişət Kondisionerləri Zavodunun qısa vaxt ərzində - cəmi iki ilə araya-ərsəyə gətirilməsi o zaman bütün kecmiş ittifaq respublikalarında nadir hadisə kimi qarşılanmış, Azərbaycanın şöhrətini daha da artırmışdı. Kimya və neft-kimya sənayesi də böyük templərlə inkişaf edirdi. Azərbaycanda etilen və polietilen istehsalı, sintetik kauçuk, mineral gübrələr, yuyucu tozlar və digər məhsullar istehsal edən iri komplekslər istifadəyə verilir, Sumqayıtdakı müəssisələrin demək olar ki, hamısı köklü surətdə yenidən qurulurdu. Respublikada ilk dəfə çoxsahəli əlvan və qara metallurgiya kompleksi yaradıldı, boru-prokat zavodu texniki cəhətdən tamamilə yenidən quruldu.

Enerji sisteminin potensialını daha da artırmaq məqsədilə Heydər Əliyev SSRİ rəhbərliyi qarşısında Zaqafqaziyada ən böyük elektrik stansiyasının tikilməsi məsələsini qaldırdı və 3000 meqavat gücü olan 10 bloklu Mingəcevir DRES-in tikintisinə nail oldu. Bir qədər sonra - 1982-1983-cü illərdə Şəmkir SES istifadəyə verildi. Nəticədə respublikamızın su-elektrik stansiyalarının gücü ikiqat artırılaraq elektrik enerjisinin istehsalı 1987-ci ildə təqribən 1,5 milyard kilovat/saata çatdı. Bütün bu işlər yalnız Heydər Əliyevin fenomenal uzaqgörənliyinin, və bacarığının, şəxsi əzmkarlığının, əlbəttə ki, Vətənə və dövlətə böyük sevgisinin sayəsində mümkün olub, reallığa çevrildi.

Yeni müəssisələrin yaradılması nəticəsində sosial-iqtisadi sferada çalışanların ümumi sayı 1985-ci ildə 2,6 milyon nəfərə çatmışdı. Bu isə 1970-ci illə müqayisədə 1,5 dəfə çox idi. Əgər 1969-cu ildə orta aylıq əmək haqqının səviyyəsinə görə Azərbaycan 15 müttəfiq respublika arasında axırıncı yeri tuturdusa, 1980-ci ildə artıq 4-cü yerə qalxmışdı. Aqrar sektorun inkişafında əldə olunan uğurlu nəticələr kənd təsərrüfatı işçilərinin sosial vəziyyətini xeyli dərəcədə yaxşılaşdırmış, onların gəlirlərinin artmasına səbəb olmuşdu.

Əminliklə deyə bilərik ki, məhz həmin dövrlərdə yaradılan iqtisadi potensial çox sonralar özünün dövlət müstəqilliyini bərpa etmiş Azərbaycanın inkişafı üçün yaxşı təməl idi. Ulu öndərin XX əsrin 70-80-ci illərində düşünüb qurduğu strategiyanın, xalqın dirçəlişi yolunda çəkdiyi gərgin zəhmətlərin və yürütdüyü məqsədyönlü

dövlət siyasətinin nəticəsində Azərbaycan Respublikası əsrin sonlarında möhkəm maddi-texniki baza ilə, elmi-mədəni potensialla və geniş iqtisadi strukturla müstəqil inkişaf yoluna qədəm qoya bildi.

...Burada onu da qeyd etmək lazımdır ki, məhz əsrin sonlarında keçmiş SSRİ-də gedən siyasi proseslər nəticəsində dövlət idarəçiliyi mexanizmi dağılmış, zəruri əlaqələr pozulmuş, cəmiyyətdaxili ünsiyyətdə vacib şərt olan bir çox dəyərlər deqradasiyaya uğramışdı. Həyatımızın digər sahələri ilə yanaşı, iqtisadiyyatda da reqress yaşanırdı. Xalq psixoloji cəhətdən bir növ ümidsizliyə düçar olmuşdu. Vaxtilə sakit və firavan dolanan əhalinin yaşayış səviyyəsi kəskin şəkildə aşağı düşmüş, maddi vəziyyəti pisləşmişdi. 1993-cü ilin ortalarına doğru isə ölkədə hətta vətəndaş müharibəsinin simptomları müşahidə edilməyə başlamışdı. Bu, dövlətçiliyin itirilməsi, Azərbaycan Respublikasının az qala dünya xəritəsindən silinməsi kimi böyük fəlakətlərə gətirib çıxara bilərdi.

Belə gərgin dövrdə xalq üzünü xilaskar oğluna doğru çevirdi. Və Heydər Əliyev o ağır məqamda yenə xalqının tələbi ilə Azərbaycanın idarəçilik sükanı arxasına qayıtmağa razı oldu. Ədalət naminə deyək ki, elə mürəkkəb şəraitdə o cür ağır məsuliyyəti hər adam öz üzərinə götürməyə risk etməzdi. Ancaq böyük iradə və cəsarət sahibi olan müdrik insan bu çağırışa mətanətlə "hə" cavabı verdi. Ölkənin ən təhlükəli vəziyyətində çox böyük iradə və mərdlik tələb edən düzgün tarixi bir addım atdı. Vaxtilə özünün qurub yaratdığı ölkəni xaosun pəncəsindən xilas etməyə gəldi...

Bəli, dahi Heydər Əliyevin hakimiyyətə qayıdışı - Azərbaycanda qurtuluş anının başlanğıcı oldu! Sanki möcüzə baş verdi. Qısa vaxt ərzində respublikada ictimai-siyasi vəziyyət sabitləşdi, qanlı müharibə durduruldu, atəşkəs elan olundu, həyat yavaş-yavaş öz axarına düşməyə başladı.

Cəmi bir il sonra - 1994-cü il sentyabrın 20-də ölkəmizdə taleyüklü böyük hadisələr baş verdi. Dahi strateq Heydər Əliyevin fövqəladə uzaqgörənliyi, qətiyyətli addımları və mətin iradəsi sayəsində "Əsrin müqaviləsi" imzalandı. Bu müqavilənin imzalanması ulu öndərin müstəqil dövlət quruculuğu konsepsiyasının strateji istiqamətlərindən biri, bəlkə də birincisi idi. Dahiyanə istedadla qurulan və böyük cəsarətlə həyata keçirilən yeni neft strategiyası həqiqətən müasir Azərbaycanın taleyində, milli dövlətçiliyin möhkəmləndirilməsində həlledici rol oynadı. Ümummilli liderin rəhbərliyi ilə işlənib hazırlanmış neft strategiyası XXI əsrin astanasında Azərbaycan iqtisadiyyatının dinamik inkişafının əsasını qoydu.

Təsadüfi deyil ki, Heydər Əliyevin hazırladığı və həyata keçirdiyi "Əsrin müqaviləsi" kimi tarixə düşən bu beynəlxalq müqavilədən sonra Azərbaycan Respublikasının potensial imkanları dünyaya bütün parlaqlığı ilə açıldı. Respublikamızın sağlam imicinin yüksəldilməsi uğrunda Azərbaycan Prezidentinin səmərəli və yorulmaz fəaliyyəti, dünyanın müxtəlif ölkələrindəki çoxsaylı görüşləri, danışıqları, konfrans və toplantılarda dərinməzmunlu çıxışları, beynəlxalq qurumların məşhur iş adamlarını ölkəmizə sərmayə qoymağa inamla təşviq etməsi və təkidli dəvətləri, habelə aparıcı dövlətlərin rəhbərləri arasında şəxsi nüfuzu tezliklə bir çox beynəlxalq qurumların, transmilli şirkətlərin ölkəmizə marağını artırdı, əməkdaşlıq arzusunda olanların sırasını genişləndirdi. Az sonra 19 ölkənin 41 neft şirkəti ilə Azərbaycan arasında 26 sazişin imzalanması bu gərgin fəaliyyətin məntiqi nəticəsi idi.

Ümummilli liderin nadir dühasının və siyasi iradəsinin təntənəsi olan Bakı-Tbilisi-Ceyhan neft kəməri texniki-iqtisadi əhəmiyyətlə yanaşı, həm də çox böyük siyasi mahiyyət kəsb etdi. Məhz buna görə də böyük siyasət və dövlət xadiminin tarixi xidmətlərini nəzərə alan layihə iştirakçıları Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə Heydər Əliyevin adının verilməsini qərara aldılar.

Digər iri layihələr - Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi və "Şahdəniz" yatağından qazın hasilatı da ümummilli liderimizin Azərbaycan xalqı və dövləti qarşısında böyük xidmətlərinin sırasında özünəməxsus yer tutur.

"Neft Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur". Ümummilli lider Heydər Əliyevin uzaqgörənliklə dediyi bu müdrik sözlər diqqətimizi mühüm bir məqama yönəldir. Belə ki, "Əsrin müqaviləsi"nin həyata keçirilməsi nəticəsində ilk gəlirlər əldə edilməyə başlayanda qarşıda duran vacib məsələlərdən biri də bu gəlirdən necə səmərəli istifadə olunması ilə bağlı idi. Məhz belə bir etibarlı mexanizmin yaradılması məqsədilə Heydər Əliyev 29 dekabr 1999-cu il tarixli fərmanı ilə Dövlət Neft Fondunu yaratdı. Fondun əsas vəzifəsi Azərbaycan Respublikası vətəndaşlarının bugünkü və gələcək nəsillərinin mənafeyi naminə neft və qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi sahəsində bağlanan sazişlərin həyata keçirilməsindən əldə olunan vəsaitin idarə olunmasını təmin etməkdən ibarətdir. Buraya böyük həcmdə daxil olan valyuta gəlirlərinin ölkədə makroiqtisadi sabitliyin qorunmasına, qeyri-neft sektorunun inkişafının təmin edilməsinə, eyni zamanda, gələcək nəsillər üçün ehtiyat vəsaitinin toplanmasına, ölkənin sosial-iqtisadi tərəqqisi üçün ümummilli əhəmiyyət kəsb edən layihələrin maliyyələşdirilməsinə və s. yönəldilməsi nəzərdə tutulmuşdur. Dövlət Neft Fondu ötən müddət ərzində xalqımızın milli sərvəti olan neft

gəlirlərinin idarə olunması sahəsində uğurlu mexanizm kimi özünü doğrultdu. Qurumun aktivləri bu gün artıq təxminən 25,8 milyard ABŞ dollarına çatmışdır.

Azərbaycan Respublikasının Dövlət Neft Fondu yaradılandan sonra regionların, kiçik və orta sahibkarlığın, qeyri-neft sektorunun, infrastruktur sahələrinin inkişafı, yoxsulluğun azaldılması üzrə tədbirlərin həyata keçirilməsi, bir çox sosial problemlərin həlli, iqtisadiyyatın intellektual və texnologiya bazasının səviyyəsinin yüksəldilməsinin stimullaşdırılması, "insan kapitalı"nın inkişafı, yüksək ixtisaslı kadrların hazırlanması, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, məcburi köçkünlərin müvəqqəti məskunlaşması üçün qəsəbələrin salınması və s. ilə bağlı tədbirlər intensiv həyata keçirilməkdədir.

Ulu öndərin uzaqgörənliklə işləyib hazırladığı və reallaşdırmağa başladığı, bu günsə möhtərəm cənab Prezident İlham Əliyev tərəfindən məharətlə həyata keçirilən yeni neft strategiyası Azərbaycan xalqının rifahı naminə zəngin neft ehtiyatlarından səmərəli istifadə edilməklə özünü tam doğrultmuşdur.

Heydər Əliyevin məharətli idarəçilik üslubu artıq 1998-ci ilin əvvəlində Azərbaycanda iqtisadi islahatları dərinləşdirmək və sosial-iqtisadi inkişafın daha yüksək sürətini təmin etmək baxımından kifayət qədər möhkəm zəmin yaratmışdı. İqtisadi inkişafımızın templəri get-gedə artırdı. Daim xalqın rifah halının yaxşılaşdırılmasını düşünən respublika rəhbərliyinin əhalinin "mavi yanacağa" olan tələbatını ödəmək istiqamətində gördüyü məqsədyönlü tədbirlər nəticəsində təbii qaz verilən rayonların sayını üç dəfə artıraraq 52-yə çatdırmaq mümkün oldu.

Yeni energetika güclərini yaratmaq və elektrik şəbəkəsi təsərrüfatını genişləndirmək məqsədilə son illərdə bu sahəyə güzəştli şərtlərlə böyük həcmdə xarici sərmayə cəlb olunmuşdur. "Şimal" Elektrik Stansiyasında gücü 400 meqavat, 1 nömrəli Bakı İstilik Elektrik Mərkəzində gücü 105 meqavat olan buxar-qaz enerji blokları tikilmiş, 150 meqavatlıq Yenikənd Su Elektrik stansiyası istismara verilmiş, Mingəçevir Su Elektrik Stansiyasının yenidənqurulması nəticəsində ölkənin enerji sisteminin gücü 700 meqavatadək artırılmaqla 4800 meqavata çatdırılmış bir sıra yüksək gərginlikli xətlərin və yardımçı stansiyaların texniki baxımdan yenidən qurulması işləri aparılmışdır.

Makroiqtisadi sabitləşmə və iqtisadiyyatın dinamik inkişafı sahəsində qazanılan uğurlar ölkə vətəndaşlarının yaşayış səviyyəsinin nəzərəçarpacaq dərəcədə yüksəlməsinə imkan vermişdir ki, bu da ümummilli lider Heydər Əliyevin əsas məqsədlərindən biri idi. Onun bütün fərmanları, sərəncamları və tapşırıqları son nəticədə Azərbaycan vətəndaşının maddi rifahının durmadan yaxşılaşdırılmasına yönəlmişdi.

Möhtərəm Heydər Əliyevin dünyanın aparıcı ölkələrinin rəhbərləri arasında qazandığı yüksək nüfuzu bir çox dövlətlərin, beynəlxalq təşkilatların və iri şirkətlərin Azərbaycanla əməkdaşlığa maraq göstərməsinə səbəb olmuşdur. Həmçinin beynəlxalq maliyyə-bank qurumları və donor ölkələrlə əməkdaşlıq intensiv inkişaf etdirilmişdir. Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun, Avropa Yenidənqurma və İnkişaf Bankının, İslam İnkişaf Bankının, Küveyt İqtisadi İnkişaf Fondunun, Avropa Komisiyyasının, Asiya İnkişaf Bankının, Yaponiya İqtisadi Əməkdaşlıq Bankının, habelə bir sıra hökumətlərin verdiyi kreditlər 50-dən cox layihə və proqramın maliyyələşdirilməsi üçün istifadə olunmuşdur. Bu layihə və proqramlar əsasən iqtisadiyyatın infrastrukturunun, kənd təsərrüfatının, sənaye müəssisələrinin və həyati əhəmiyyət kəsb edən obyektlərin inkişafı ilə bağlıdır.

Bu gün Azərbaycan artıq 40-a yaxın beynəlxalq siyasi, iqtisadi, maliyyə-bank, mədəni, humanitar təşkilatın tamhüquqlu üzvüdür. Dünyanın 15 aparıcı dövləti və beynəlxalq təşkilatları ilə əməkdaşlıq üzrə komissiyalar və işçi qrupları yaradılmışdır. Bütün bu nailiyyətlər bilavasitə ümummilli lider Heydər Əliyevin böyük xidmətlərinin nəticəsiydi.

Azərbaycanın son otuz beş ilə yaxın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatı, habelə müstəqillik əldə edildikdən sonra milli dövlətcilik quruculuğu Heydər Əliyevin adı və şəxsiyyəti ilə sıx bağlıdır. Azərbaycan ictimai fikir tarixində fenomenal hadisə olan Heydər Əliyev dühası haqqında istər ölkəmizdə, istərsə də xaricdə çox yazılmış, çox danışılmışdır. Onun qeyri-adi işgüzarlığına, fəaliyyət qabiliyyətinə, rəhbərlik, təşkilatçılıq, idarəçilik istedadına, tükənməz enerjisinə, xalqa, Vətənə sonsuz sevgisinə dair görkəmli dövlət xadimləri, tanınmış elm, ədəbiyyat, incəsənət adamları çox dəyərli sözlər söyləmiş, yüksək fikirlər demişlər.

Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin banisi, memarı və qurucusudur. Bu gün 20-ci baharını yaşayan müstəqil dövlətimizin təməli, iqtisadi-mənəvi, hətta ideoloji özülü uzaq 70-ci illərdə, Heydər Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində qoyulmuşdur. Türkiyə Cümhuriyyətinin sabiq prezidenti, görkəmli dövlət və siyasət xadimi hörmətli Süleyman Dəmirəl bu mövzuya toxunarkən daha sərrast ifadə ilə demişdir: "Bu gün Azərbaycanda nə varsa, hamısı Heydər Əliyevin keçmiş zamanda xidmət göstərdiyi vaxt yaradılmışdır".

...Beləliklə, həqiqətən də o zamanlar həyatın bütün sahələrində nail olunan irəliləyişlər sovetlər birliyi çökdükdən sonra öz dövlət müstəqilliyini bərpa edə bilmiş Azərbaycan Respublikasının dirçəlişi üçün etibarlı maddi-mənəvi özül oldu. Heydər Əliyevin respublikaya ilk rəhbərlik etdiyi 1969-1982-ci illərdə Azərbaycan

bütün tarixi ərzində görünməyən sürətli inkişaf yolu keçdi. Vaxtilə qazanılan uğurları nəzərdə tutaraq Heydər Əliyev belə deyirdi: "O dövrdə respublikamızda yaranmış güclü sosial-iqtisadi və intellektual potensial xalqımızın milli sərvətidir və Azərbaycanın müstəqilliyi üçün yaxşı zəmin yaradır".

Artıq müasir Azərbaycan bugünkü inkişaf tempinə görə nəinki MDB ölkələri arasında, hətta bütün regionda öncül yerlərdən birini tutur. Dünya birliyinə inteqrasiya prosesinin digər respublikalarla müqayisədə daha uğurla həyata keçirilməsi onu göstərir ki, müstəqilliyimizin iqtisadi bünövrəsi həqiqətən möhkəm qurulmuşdur. Sonradan ikinci dəfə hakimiyyət sükanı arxasına keçən dahi rəhbərimiz fövqəladə bacarıq və mətanətlə həmin bünövrə üzərində yeni bir Azərbaycan qurmuş, qoruyub saxlamış, dirçəltmiş və sabit inkişaf relsləri üzərinə qoyaraq etibarlı əllərə təhvil vermişdir.

2003-cü ildən etibarən ölkəyə inamla rəhbərlik edən Heydər Əliyev idarəçilik məktəbinin layiqli yetirməsi, ulu öndərin özü qədər inandığı və etimad göstərdiyi cənab İlham Əliyev Azərbaycan iqtisadiyyatının sabit inkişaf tempini qoruyub saxlamaqla yanaşı, ölkənin daha dinamik inkişafına, müasir Azərbaycanın modernləşdirilməsinə xüsusi diqqət yetirir.

Təsadüfi deyil ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2011-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyev ölkəmizdə artıq keçid dövrünün başa çatdığını və Azərbaycan iqtisadiyyatının indi daha yüksək növbəti mərhələyə, modernləşdirilmə mərhələsinə qədəm qoyduğunu vurğulamışdır. O qeyd etmişdir ki, ötən il bütün dünyada ağır maliyyə böhranı yaşanmasına baxmayaraq, Azərbaycanda bunun təsiri minimum dərəcədə hiss olundu. Belə ki, inflyasiya cəmi 5,7 faiz təşkil etdi, manatın məzənnəsi dəyişmədi, əhalinin sosial müdafiəsi təmin olundu, pul gəlirləri 12,3 faiz artdı. Əhəmiyyətlidir ki, ölkədə yoxsulluq həddində yaşayan insanların sayı 2009-cu illə müqayisədə xeyli azalaraq 9,1 faizə enmişdir. Ümumilikdə isə son 7 ildə yoxsulluq səviyyəsi 4-5 dəfə azalmışdır. Bu, Azərbaycan əhalisinin rifah halının yaxşılaşdırılmasına yönələn dövlət siyasətinin bariz göstəricisidir. Prezident İlham Əliyev onu da vurğuladı ki, 2010-cu ildə ölkə iqtisadiyyatına 15,5 milyard dollar sərmayə yönəldilmişdir və daxili investisiyalar xarici investisiyaları üstələmişdir. Xüsusən qeyri-neft sahələrinə yönəldilən sərmayələrin neft sənayesinə qoyulan sərmayələrdən çoxluğu əlamətdardır. Belə ki, 15,5 milyard dolların 9,3 milyard dollarının qeyri-neft sektoruna qoyulması iqtisadiyyatın neft amilindən asılılığını azaltmağa istiqamətlənmiş hökumət siyasətinin uğuru kimi dəyərləndirilməlidir.

Bundan başqa, 2010-cu ildə minimum əməkhaqqı və pensiyanın baza hissəsinin artırılması, ünvanlı sosial yardımların göstərilməsi, ölkənin hər yerində sosial infrastrukturun geniş şəbəkəsinin yaradılması, Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilməsi, yeni təhsil, səhiyyə, idman-sağlamlıq ocaqlarının tikilib istifadəyə verilməsi, həmçinin son bir ildə 70 mindən çox iş yerinin açılması, yaşayış məntəqələrinin qazlaşdırılması, yeni, rahat yolların çəkilməsi, körpülərin salınması, müasir nəqliyyat infrastrukturunun yaradılması və s. bütün bu işlərin görülməsi, heç şübhəsiz, əhalinin həyat şəraitinin daha da yaxşılaşdırılmasına dövlət qayğısından xəbər verir.

Nazirlər Kabinetinin iclasında Prezident İlham Əliyev 2011-ci ildə qarşıda duran vəzifələr sırasına - sosial-iqtisadi inkişafın davam etdirilməsini, nəzərdə tutulan sosial-iqtisadi layihələrin, eləcə də icrası yarımçıq qalmış işlərin başa çatdırılmasını, Bakı-Tbilisi-Qars dəmiryolu tikintisinin davam etdirilməsini, sahibkarlığın inkişafına dövlət və özəl təşkilatlar tərəfindən göstərilən dəstəyin artırılmasını, kənd təsərrüfatının inkişafını sürətləndirmək üçün əlavə tədbirlərin görülməsini, subsidiyalar verilməsinin davamlı olmasını, iri fermer təsərrüfatlarının yaradılmasını, əhalinin əsas ərzaq məhsulları ilə təminatının maksimum dərəcədə yerli istehsal hesabına ödənilməsini, bu məqsədlə aqroservislərin fəaliyyətinə geniş meydan verilməsini, paytaxtda tikinti, quruculuq, yaşıllaşdırma işləri, xüsusilə dəniz sahilində yeni istirahət zolağı salınmasının planauyğun şəkildə davam etdirilməsini və s. aid etmişdir.

2011-ci ili "Turizm ili" kimi xarakterizə edən cənab Prezident bu il daha əlamətdar bir hadisənin - Azərbaycanın dövlət müstəqilliyini qazanmasının 20-ci ildönümünün xüsusi qeyd olunacağını da xatırladaraq bu tarixi hadisəyə ciddi hazırlıq görülməsinin vacibliyini vurğulamışdır.

İnamla demək olar ki, Azərbaycanın güclənən mövqeləri, iqtisadiyyatının inkişafı, beynəlxalq nüfuzunun artması, xüsusən dövlət başçısının siyasi iradə nümayiş etdirməsi, xalq-iqtidar birliyi 2011-ci ildə qarşıda duran bütün bu vəzifələrin uğurla yerinə yetiriləcəyinə, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn tələbləri səviyyəsində və ölkəmizin maraqları çərçivəsində həll olunacağına əsas yaradır. Cənab Prezidentin qətiyyətlə bəyan etdiyi kimi, əminliklə demək olar ki, 2011-ci il də ölkəmizin inkişafı üçün uğurlu olacaqdır.

Bu həm də o deməkdir ki, ulu öndər Heydər Əliyevin sosial-iqtisadi inkişaf konsepsiyası məhz onun arzuladığı kimi, uğurla davam etdirilməkdədir. İndi bu böyük siyasəti xüsusi əzmkarlıq və iradə ilə yeni düşüncəli, müasir tipli bir rəhbər davam etdirir. Ölkənin davamlı inkişafına, milli maraqlarımıza, xalqın

rifahının yaxşılaşdırılmasına xidmət edən iqtisadi-sosial strategiya bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında davam etdirilərək onun ardıcıl, məqsədyönlü və praqmatik siyasəti sayəsində müvəffəqiyyətlə reallaşdırılmaqdadır.

Biz tam əminliklə deyə bilərik ki, ulu öndərin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf kursunu möhtərəm Prezident İlham Əliyev inamla davam etdirərək ölkəni irəliyə, intibaha doğru aparır.

“**Azərbaycan**”.-2011.-3 may.-N 94.-S.4.

# HEYDƏR ƏLİYEV-MİLLİ İFTİXARIMIZ VƏ MƏNƏVİ DƏYƏRLƏRİMİZ

**Hüseyn İSMAYILOV,**
AMEA Folklor İnstitutunun direktoru,
filologiya elmləri doktoru, professor

"Mən bütün həyatımı xalqıma xidmət etməyə həsr etmişəm, bundan sonra da bu yolla gedəcəyəm, başqa yolum yoxdur. Vətənimə, xalqıma, millətimə məhəbbət, müstəqil Azərbaycan dövlətinə, Azərbaycan Respublikasına hədsiz məhəbbət mənim həyatımın mənasıdır, məzmunudur".

***HEYDƏR ƏLİYEV***

Dünyada mövcud olan hər bir dövlətin nüfuzu və qüdrəti qiymətləndirilərkən onun ərazisi və əhalisinin azlığı-çoxluğu, sərvətlərinin miqdarı, hərbi qüdrəti ilə yanaşı, bu dövlətin mənəvi sərvətləri, o cümlədən onun tarixində silinməz, əbədilik iz qoymuş dahi şəxsiyyətləri və onların xidmətləri də nəzərə alınmalı, qiymətləndirilməlidir.

Çünki dövlətin təbii sərvətlərlə, maddi nemətlərlə zəngin olması heç də onun xalqının bütövlükdə mənəvi cəhətdən zəngin olması üçün kifayət deyil. Dövlətin tam, bütöv mənada zəngin, nüfuzlu və qüdrətli olması üçün hər şeydən əvvəl, onun xalqının mənəviyyatca zəngin olması və tarixin müxtəlif dönəmlərində bu xalqın uzaqgörən, müdrik və dahi oğullarının olması gərəkdir. Bu baxımdan bütün xalqların həyatında böyük mədəni mərhələlər dahi şəxsiyyətlərlə başlanır, uzun zaman davam edir, yeni dəyərlər sistemi formalaşdırır, yaşayışa, davranışa və yaddaşa əbədi olaraq həkk olunur. Tarixdə adı böyük epoxal zamanın işarəsi kimi, onun simvolu olaraq anılan İsgəndər, Oğuz xan, Çingiz xan, Əmir Teymur var... Bu tarixi şəxsiyyətlərin hər biri keçmiş mədəniyyəti zamanla, dövr və dövranla bağlı mühüm dəyərləri xatırladan yaddaş kodları kimi yaşayır.

Ən yeni dövr dünya tarixinə dahi şəxsiyyət kimi daxil olmuş Heydər Əliyevlə millətimizin tarixində yeni bir mərhələ başlandı. Bu mərhələnin ən əlamətdar cəhəti dövlətçilik ənənəsinin bərpasıdır. Təbii ki, dövlətçilik geniş bir anlayışdır. Siyasi resursların yetərli olmadığı, ənənənin qırıldığı bir şərait- də dövlət qurmağın və onu qorumağın nə qədər çətin və mürəkkəb bir iş olduğu məlumdur. Bunu böyük türk hökmdarı Bilgə Kağanın daşlara yazılmış vəsiyyətindən də anlamaq olur. Burada türk millətinə əldə etdikləri müstəqilliyi qan və can bahasına qorumaq vəsiyyət olunur. Bu vəsiyyət ondan sonra gələn türk dövlət başçılarının hamısına, o cümlədən Heydər Əliyevə ünvanlanır. Ona görə də Ulu Öndər dönə-dönə "müstəqilliyimiz dönməzdir, əbədidir" dedi. Həm də' bunu uzaq gələcəyi də aydın görən dahiyanə müdrikliklə və tam əminliklə söylədi.

Millətin taleyini düşünən, onunla yaşayan və bütün fəaliyyətini ona həsr edən Heydər Əliyev 1993-cü ilin iyununda xalqın tələbi ilə hakimiyyətə gələndə dağılmış bir ölkəyə, nizamsız bir cəmiyyətə yiyə durdu. Böyük şəxsiyyətin uzaqgörən və təmkinli siyasəti nəticəsində cəmiyyət yavaş-yavaş dirçəldi, çökmüş və məhvə sürüklənən yarımcan ölkə ayağa qalxdı. Xalqımızın inamı Heydər Əliyev kimi bir dahinin şəxsiyyətində zühur edərək, öz əski formasını və müasir məzmununu bərpa etdi, əxlaq, adət-ənənə və milli davranışın mənəvi arsenalını özünə qaytardı. Heç vaxt, heç bir dövrdə xalqın belə etibarlı və sakral dəyərlərə söykənən inamını qazanmaq Tanrı iradəsindən kənarda baş verməyib, əksinə, onun istəyi ilə reallaşıb. Heydər Əliyev şəxsiyyətinə inam da Oğuz Xana, İstəmi və Bilgə Kağana, Toğrul bəyə, Böyük Türkiyəni dünyəvi dövlətə çevirən Mustafa Kamal Paşa Atatürkə olan inamın, milli yaddaşdakı öndər şəxsiyyət idealına bəslənən sevginin aydın və parlaq şəkildə seçilən kamil nümunəsi kimi real və konkret tarixi situasiyada təzahür etdi.

Dünya xalqlarının tarixi taleyinə və sosial-siyasi təcrübəsinə nəzər salsaq, onda hökmən öndərin rolu və mövqeyini aydın şəkildə müşahidə edə bilərik. Məhz oyanış milli şüurun milli təşkilatlanmaya, milli dirçəlişə və istiqlala yönəldilməsi öndər missiyası və başçının xilaskar funksiyası ilə gerçəkləşir; azad insan da, demokratik dövlət də, təhlükəsiz vətən də bu zaman xəyal və arzu olaraq qalmır, sürətlə gerçəkləşir və konkret tarixi reallığa çevrilir. Bizim milli tariximizdə Şah İsmayıl Xətaidən başlamış Azərbaycan Xalq Cümhuriyyətini quran milli ziyalılarımıza qədər zəngin və şərəfli səhifələr yazan böyük şəxsiyyətlərimiz olub. Bütün bu şərəfli tarixlə yanaşı, sovet dönəmi də daxil olmaqla bizim milli dövlətçilik təcrübəmizin ən nikbin ifadəsi özünü ulu

öndər Heydər Əliyev şəxsiyyətində tapdı. Xalqın həyatında mənəvi yüksəliş də bu böyük şəxsiyyətin başçılığı ilə başlandı. Lakin bütün bu deyilənlər heç də asanlıqla, maneəsiz başa gəlməmişdir. Çox təəssüflər olsun ki, Heydər Əliyevin xalqın xilası üçün yeganə yol olan hakimiyyətə gəlişinə ruslar və ermənilərlə bərabər öz daxilimizdən olan bədxah qüvvələr də qoşulmuşdur. Bütün bu yaxın tarix gözlərimizin qarşısında baş vermişdir.

Siyasi hakimiyyətin yüksək dairəsindən kənarda olduğu 1987-1993-cü illər arasında Vətən də, Millət də faciəli günlərini yaşadı; yurd yağıların işğalına məruz qaldı, milli ruh mənəvi məkandan, azadlıq ideyası düşüncədən itkin salındı, siyasi xaos, iqtisadi tənəzzül və mədəni deqradasiya başladı. Sovet imperiyasının laxlaması milli kükrəyişin, deportasiya isə siyasi etirazların artmasına səbəb oldu. Belə mürəkkəb bir şəraitdə Azərbaycan və azərbaycanlılar siyasi cəhətdən təşkil olunmamışdı. Çökməkdə olan sovet imperiyası Azərbaycanda onun çubuğu ilə işləyən marionet rəhbərliyə daha çox üstünlük verirdi. Milli azadlıq hərəkatının bəzi liderləri isə bu mücadiləni hakimiyyət uğrunda mübarizəyə yönəltməklə, onu öz təbii məcrasından çıxardılar. Azərbaycanın həqiqi istiqlalını istəməyən həm xarici, həm də ölkə daxilindəki bəzi qüvvələr siyasi uzaqgörənliyini və idarəçilik məharətini nəzərə alaraq Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsinə bütün mümkün vasitələrlə mane olurdular.

Erməni terroru nəticəsində qərbi azərbaycanlıların öz doğma yurdlarını tərk etdiyi 1988-ci ildən sonra mənim şəxsən birbaşa iştirak etdiyim Heydər Əliyevin hakimiyyətə qayıdışı uğrunda mücadilədə bizə qarşı çıxan qüvvələrin siyasi davranışından bu məmləkətin faciəli reallığını bir daha dərindən dərk etdim. Dərk etdim ki, əgər Heydər Əliyevin hakimiyyətə gəlişini imperiyapərəst qüvvələr istəmirsə, deməli onun gəlişi Azərbaycan üçün həyati əhəmiyyət daşıyır.

Mənim Heydər Əliyevə xalqımızın yetirdiyi böyük şəxsiyyət, müdrik insan, nadir zəka sahibi kimi sevgim lap gənc yaşlarımdan başlamışdı. Qəribə da olsa, etiraf edim ki, bu sevginin misilsiz dərəcədə güclənməsinə erməni millətçiləri səbəb olmuşdular. Çalışdığım İrəvan Pedaqoji İnstitutunda cəmləşmiş erməni millətçiləri, o cümlədən, təmasda olduğum bütün erməni ziyalıları onu özlərinin ən böyük düşməni hesab edir və deyirdilər: "O, (Heydər Əliyev - H.İ.) necə ki, həyatdadır, biz heç bir arzumuza çata bilməyəcəyik". Heydər Əliyevin böyüklüyünü, gücünü və yenilməzliyini başda bütün dünya ermənilərinin katalikosu Vazgen və Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin o vaxtkı birinci katibi K.S. Dəmirçiyandan tutmuş, adi, sıravi erməniyədək bütün ermənilər bilir, anlayır, etiraf edirdilər. Çünki onlar birdəfəlik anlamışdılar ki, Heydər Əliyev yaşadıqca onlar Azərbaycandan nəinki Naxçıvanı və Qarabağı, heç bir qarış torpağı da qopara bilməyəcəklər. Sumqayıt hadisələrindən az sonra İrəvandakı Teatr meydanında ermənilərin Azərbaycana qarşı izdihamlı çıxışlarının, mitinqlərinin lap qızğın çağlarında K.S. Dəmirçiyanın öz millətinə üz tutaraq söylədiyi nəsihətlərini biz hələ 1993-cü ildə nəşr etdiyimiz "Ulu Göyçə" qəzetində çap etmişdik: "Mənim əziz millətim! Siz çox ağır və həlli çox müşkül bir işə qatılmısınız. Düzdür, ölkənin indiki rəhbəri M.S. Qorbaçov bizim adamdır. O, bizim arxamızdadır. Amma unudursunuz ki, türklərin Heydər Əliyev adlı böyük bir oğlu var. O, neçə ki həyatdadır, siz Azərbaycandan heç nə qopara bilməyəcəksiniz. Mən onu yaxşı tanıyıram. Biz uzun illər bütün dünya ermənilərinin nə qədər gücü varsa, onu məhv eləmək üçün səfərbər elədik. Amma o, çekist məharəti ilə hamısından sivişib qurtara bildi, bizim qurduğumuz bütün planları alt-üst elədi.

Doğrudur, Mixail Sergeyeviçin əli ilə biz onu Kremldən, Siyasi Bürodan uzaqlaşdırdıq. Amma onu məhv edə bilmədik. Onu məhv eləmək sizə elə asan görünməsin. Baxarsınız, onu yenidən hakimiyyətə gətirəcəklər. O zaman bütün havadarlarımızın səyi ilə nə qazanmışıqsa, gec və ya tez hamısını itirəcək, axırda məğlub olacağıq. Heydər Əliyevlə mübarizə aparmaq çox çətindir, bu qeyri-mümkün bir işdir".

Bu həqiqəti bütün ermənilər, bir də bizlər - türk olaraq ermənilərlə bir yerdə yaşayanlar və onları tanıyanlar yaxşı anlayırdıq. Millətimizin qanına susayan ermənilərin bütün varlığı ilə nifrət etdiyi bu böyük türk oğlunu, onların dili ilə desək, "Heydər paşa"nı axı biz necə sevməyə bilərdik?! Təəssüflər olsun ki, bu həqiqət millətimizin bəzi üzdəniraqları tərədən zamanında dərk olunmamışdı.

1992-ci ilin aprelində o vaxtkı dövlət başçısı Ayaz Mütəllibov birbaşa Heydər Əliyevin xalqın sevgisi və dəstəyi ilə hakimiyyətə gələ biləcəyindən ehtiyatlanaraq prezident seçkiləri haqqında qanuna "Yaş senzi" maddəsini əlavə etdi. Bu, Heydər Əliyevin hakimiyyətə qayıdışmı əngəlləmək üçün atılan növbəti addımlardan biri idi. Ancaq heç kimə sirr deyil ki, ölkəmizin yaşadığı belə ağır anlarda da xalqın böyük əksəriyyətinin

yeganə ümidi Heydər Əliyev idi. Hamı onun hakimiyyət sükanını öz əlinə alacağı günü böyük səbirsizliklə gözləyirdi.

Mən müxtəlif istiqamətli yaradıcılıqla məşğul olsam da, şeirə, poeziyaya çox nadir hallarda üz tuturam. Yalnız içimdə dolaşan ən munis duyğularım məcrasından çıxanda, istər-istəməz, məndən asılı olmayaraq misralara çevrilir. 1992-ci ildə Vətənimizin dərdi tüğyan elədiyi bir vaxtda belə bir ovqat mənə hakim kəsildi və "Vətənin yaman günüdü" adlı bir şerim dünyaya gəldi. Şeirin əvvəlki bəndlərində Azərbaycanın dərdi, müsibət və fəlakətləri sonsuz bir həyəcan, müdhiş bir qəlb ağrısı ilə təsvir edildikdən və ayrı-ayrı azadlıq mübarizlərinin xidmətləri sadalandıqdan sonra, sonuncu bənddə bu müsibətlərə əlac eləyəcək bir qüdrətin, yenilməz bir bahadırın adı və ünvanı bəlli olurdu:

Bu meydana ər gərəkdi,
Bir nər oğlu nər gərəkdi.
Ulu türk Heydər gərəkdi,
Cəm olun, aman günüdü,
Millətin yaman günüdü.

1992-ci ilin aprelində, yəni Heydər Əliyevin hakimiyyətə qayıtmasına əngəl törətmək üçün qondarılmış süni "Yaş senzi"nin ləğvi ilə bağlı keçirilən aksiyalar zamanı meydana gələn bu misralar əslində bütün xalqın istəyi, onun ən böyük arzusuydu. Və 1993-cü ilin iyununda xalqın iradəsi ilə bu arzu reallaşdı. Ulu Öndərin bu qayıdışı ilə xalqın qurtuluşunda sanki ilahi bir missiya da mövcud idi. Çünki zamanın və dövranın gərdişi xalqın tarixi taleyini sınağa çəkəndə onu göydə Tanrı, yerdə onun kölgəsi, xalqın önündə gedən, ona nicat yolunu göstərən milli öndər xilas edir. Xalq təbii və sosial bəlaları ilə üz-üzə qalanda Tanrı onu xalqın içindən seçdiyi kamil şəxsiyyətlərin mübarək simasına bağışlayır.

Heydər Əliyev şəxsiyyəti təbii ki, heç bir genetik əsas olmadan yetişə bilməzdi, bu şəxsiyyəti dünyaya fateh və sərkərdə olaraq gəlmiş Türkün min illər ərzində formalaşmış etnik potensial enerjisi yetişdirmişdir. Dünyanın heç bir xalqında dövlət və dövlətçilik ənənəsi türk xalqlarında, olduğu səviyyədə güclü olmamışdır. Türk dövlətçilik təfəkküründə isə dövlətə və dövlətçiliyə məhəbbət duyğusu, milli şüurun formalaşması, möhkəmlənməsi və daşlaşması dövlət başçısına olan sonsuz sevgidən başlanır. Həmin sevgi Turan hökmdarı Alp Ər Tonqanın ölümünə ağlayan, sinə yırtan, baş yolan, acığından atlarını yandıran qədim türkün anasından keçir, Turan dövlətinin süqutuna xalq münasibətini folklorda işarələyir. Bunlar sonralar istedadlı türk şairi Yolluq Təkinin dəsti-xətti ilə Orxon-Yenisey daşlarına yazılır. Xalq yaradıcılığı örnəkləri (xüsusilə xalq deyimləri) ilə zəngin olan möhtəşəm Orxon-Yenisey abidəsi türk dövlətçilik şüurunun real və parlaq təzahür faktı kimi milli azadlıq ideyalarını tərənnüm edən çox dəyərli kitab olaraq mədəniyyət tariximizdə layiqli bir yer tutur.

Heydər Əliyevin qədim türk dövlətçilik ənənələrindən nəşət taparaq parlamasını sübut edən ən başlıca faktor bir tərəfdən planetin son dərəcə mürəkkəb müasir siyasi gerçəkliyində Müstəqil Azərbaycan dövlətini yaratmasıdırsa, digər bir faktor isə böyük öndərin türk milli-mənəvi dəyərlər sistemini, dövlətçilik təfəkkürünü özündə yaşadan abidələrə xüsusi həssaslıqla yanaşmasıdır. Bir dövlət başçısı olaraq xalqın sonsuz sevgisini öz şəxsi həyatı və siyasi fəaliyyəti timsalında milli müstəqil demokratik dövlətçiliyə yönəldən Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 2000-ci ildə 1300 illiyi qeyd olunan "Kitabi-Dədə Qorqud" abidəsində saxlanan mənəvi sərvətimiz, folklorun və dövlətçiliyin birləşdiyi, harmonik bir vəhdət təşkil edə bildiyi misilsiz qaynaqdır. "Kitabi-Dədə Qorqud" qəhrəmanlıq dastanı olub özündə böyük elmi, mədəni, mənəvi fikirlər cəmləşdirən abidədir. Biz "Kitabi-Dədə Qorqud"un nəsihətlərindən bu gün həyatımızda istifadə edərək, xalqımızda Vətənə məhəbbət, sevgi, sədaqət, vətənpərvərlik hisslərini daha da artırırıq. "Kitabi-Dədə Qorqud" bu gün bizə çox gərəklidir. "Kitabi-Dədə Qorqud" insanları, xalqları sülhə, barışa dəvət edir.

Bütün bunları dəqiqliklə bilən, milli və bəşəri mənəvi mirasa son dərəcə böyük sayğı ilə yanaşan Heydər Əliyev xalqımız üçün mədəni-mənəvi abidələrin dəyərini dəqiq müəyyənləşdirir və onların təbliği və tanıdılması işində ən müdrik təşəbbüskar kimi şəxsən özü çıxış edir: "Bu gün Azərbaycan xalqı möhtəşəm "Kitabi-Dədə Qorqud" eposunun 1300 illiyini böyük bayram kimi təntənə ilə qeyd edir. Bu yubiley bizim üçün, bütün türk dünyası üçün, bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan tarixi bir hadisədir. Bu, bizim tarixi

köklərimizə, milli ənənələrimizə, milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə, elmimizə, xalqımızın çoxəsrlik tarixinə olan hörmət, ehtiram bayramıdır. Bu, bizim milli azadlığımızın, dövlət müstəqilliyimizin bayramıdır. Azərbaycan xalqının, bütün türk- dilli xalqların böyük tarixi abidəsi olan "Kitabi-Dədə Qorqud" 1300 ildir ki, yaşayır. Əgər 1300 ildən də öncə "Kitabi-Dədə Qorqud" dastanlarının yaranması üçün xalqlarımızın nə qədər calışdığını və nəhayət, bu tarixi abidəni yaratdığını nəzərə alsaq, onda təsəvvür edə bilərik ki, bizim xalqlarımızın nə qədər qədim tarixi, dərin kökləri və nə qədər zəngin mədəniyyəti var. 1300 il ərzində "Kitabi-Dədə Qorqud" bütün çətinliklərə, məhdudiyyətlərə baxmayaraq, 1300 il ərzində bizim xalqlarımıza mənəvi qida olmuş, onların yaşamasına, mübarizə aparmasına, öz milli mənliyini dərk edib, hifz etməsinə daim yardım göstərmişdir. Ancaq onu qeyd etmək lazımdır ki, biz "Kitabi-Dədə Qoıqud"un 1300 illik tarixinə yüksək qiymət verərək etiraf etməliyik ki, son üç il ərzində Azərbaycanda "Kitabi-Dədə Qorqud" irsinin öyrənilməsi. tədqiq edilməsi, təbliğ olunması sahəsində böyük işlər görülmüş və bunlar "Kitabi-Dədə Qorqud"u bizim xalqımıza, bütün türk dünyasına, türkdilli xalqlara tanıtmış və onun nə qədər zəngin sərvət olduğunu bütün dünyaya nümayiş etdirmişdir".

"Kitabi-Dədə Qorqud" eposunun 1300 illiyini böyük yubiley, bayram kimi təntənə ilə qeyd edilməsindən sonra son on bir ildə bu abidənin əvvəlki illərdən daha çox tədqiq, təbliğ olunması Azərbaycan xalqına çox böyük faydalar verdi. Biz öz tarixi köklərimizi, milli-mədəni irsimizi bir daha və daha dərindən dərk etməyə başladıq. Artıq biz dərk edirik ki, Azərbaycan xalqı, bütün türkdilli xalqlar dünya sivilizasiyasına nə qədər böyük töhfələr vermişlər. Bunların içərisində "Kitabi-Dədə Qorqud"un xüsusi yeri vardır. "Kitabi-Dədə Qorqud" bizim ana kitabımızdır. Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi tarixi abidəmiz vardır, fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi ulu əcdadımız var. "Kitabi-Dədə Qorqud" xalqları, millətləri daim birliyə, sülhə dəvət edib. 1992-ci ildə Türk- dilli Dövlətlər Birliyinin yaranması Dədə Qorqud vəsiyyətlərinin yerinə yetirilməsinin parlaq nümunəsidir. Biz dövlət müstəqilliyimizi əldə edəndən, milli azadlığımıza qovuşandan sonra bu birliyin təmin olunması üçün böyük imkanlar əldə etmişik və bu birliyin bizim xalqlarımız üçün nə qədər əhəmiyyətli olduğunu dərk etmişik.

"Kitabi-Dədə Qorqud"un birliyə çağırışı bu gün hər birimiz üçün lazımdır. Dövlət müstəqilliyi yolu ilə gedən ölkədə, hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu aparan Azərbaycanda milli birlik, milli həmrəylik hər şeydən vacibdir. Buna görə də biz hər il aprel ayının 7-də Folklor İnstitutunda "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin ildönümünü bayram edərək, onun bu nəsihətlərinə sədaqətimizi bildiririk və bəyan edirik ki, Azərbaycan xalqı müstəqillik yollarında qarşıda duran bütün ağır və çətin məsələlərin həll edilməsində daha çalışqan, daha əlbir olacaqdır və daim irəliyə doğru gedəcəkdir.

Dahi rəhbər ortaq türk folklor abidələrinə də çox həssaslıqla yanaşırdı. "Manas" dastanının 1000 illik yubileyi qırğız xalqının böyük tarixini dünyaya bir daha nümayiş etdirir. Qardaş qırğız xalqı "Manas" dastanının qoyduğu yolla gedir. Min il, əsrlərdən-əsrlərə böyük yol keçmiş "Manas"ın dahi fikirləri, dahi sözləri bu yolu daim işıqlandırmışdır. "Manas" qırğız xalqının müdrikliyinin rəmzidir, zəkasının, qəhrəmanlığının, cəsarətinin rəmzidir. "Manas" qırğız xalqının daim vətənpərvər olduğunu, ədalətsevər, azadlıqsevər olduğunu, cəsarətli olduğunu bütün dünyaya nümayiş etdirir. "Manas" qırğız xalqının böyük mədəni və mənəvi sərvətidir, bütün dünya sivilizasiyasının, bəşəriyyətin dəyərli sərvətidir, türk dünyasının, türkdilli xalqların, islam dünyasının böyük mənəvi sərvətidir. "Manas", eyni zamanda, Azərbaycan xalqına məxsusdur, Azərbaycan xalqının da mənəvi, mədəni sərvətidir. Manas bizim hamımızın, xalqlarımızın hamısının ulu babasıdır". Dahi öndər bu çıxışı ilə ortaq türk abidələrinə, xüsusən dövlətçilik təfəkkürünün sistem halında özündə yaşadan abidələrə xüsusi həssaslıqla yanaşdığını göstərir. Heydər Əliyevin xüsusi önəm verdiyi belə abidələrdən biri də Mahmud Kaşğarlının "Divani-Lüğat-it-Türk" əsəri olmuşdur.

Müdrik Öndərin folklorda yaşayan mütərəqqi ideyalara belə intensiv müraciəti onun son nəticədə folklorun qorunduğu müqəddəs məbədgahın, onun öz xeyir-duası ilə 1994-cü ildə yaradılmış Folklor Elmi-Mədəni Mərkəzinin daha yüksək elmi təşkilati quruma - Folklor İnstitutuna çevrilməsi ilə nəticələndi. Çünki folklor milli-mənəvi dəyərlərin qorunduğu fonddur. Ən əski çağlardan üzü bəri xalqın yaratdığı ən gözəl dəyərlər, adətlər, ənənələr, davranışlar, oyun, yarış, tamaşa, rəqs, musiqi və söz onda mövcuddur. Amma çağdaş texnogen proseslər, elmi-texniki tərəqqi sürətlə folklor yaddaşını sıradan çıxarır. Ona görə də folklorun bir

tərəfdən operativ şəkildə toplanması və nəşri, digər tərəfdən isə onun aktiv kommunikativ sferaya daxil edilməsi vacib idi. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Folklor İnstitutunun yaradılması məhz bu məqsədlərin daha mütəşəkkil şəkildə həyata keçirilməsinə xidmət edir.

Dahi rəhbər Heydər Əliyev bütün həyatı boyu elm, mədəniyyət və təhsilə daim qayğı göstərmiş, hər zaman onun hamisi olmuş, folklor və digər mədəni abidələrimizlə bağlı çox qiymətli fikirlər söyləmişdir. Böyük Öndərin folklor abidələri, onlarda yaşayan milli-mənəvi dəyərlər haqqında dedikləri müdrik kəlamlar olmaqla yanaşı, strateji vəzifələr müəyyənləşdirən proqram xarakteri də kəsb edir. Bunlar isə folklorşünaslıq elminin, o cümlədən Folklor İnstitutunun qarşısına böyük elmi vəzifələr qoyur və onların həyata keçirilməsi üçün lazım olan siyasi dəstəyi və ardıcıl iradəni nümayiş etdirir.

Azərbaycan xalqı çox xoşbəxt xalqdır. Hər şeydən əvvəl ona görə ki, onun milli-mənəvi mədəniyyətinin qarantı olan, folklorda faktlaşan və daşlaşan potensial enerjisini hərəkətə gətirməyin, çağdaş milli əxlaqın üzvi tərkib hissəsinə çevirməyin vacibliyini anlayan və hu sahədə əməli addımlar atan Heydər Əliyev kimi ümummilli lideri, genetik baxımdan türk fatehliyinə dayanan siyasi Öndəri olmuşdur. Son dərəcə nəhəng layihələr - "Əsrin müqaviləsi", "İpək yolu" layihəsi, TRASEKA, TASTİ proqramlarının həyata keçirilməsi, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərinin işləkliyinə nail olunması, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, Türksoyun, Türk Yazarlar Birliyinin yaranması, YUNESKO səviyyəsində Məhəmməd Füzulinin 500, türk dünyasının ana kitablarından olan "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileylərinin keçirilməsi, Azərbaycanın bir türk cümhuriyyəti olaraq Amerika və Avropada tanınması, türk dövlət başçılarının zirvə görüşlərinin keçirilməsi, Azərbaycanda Atatürk Elmi Araşdırmalar Mərkəzinin və ən nəhayət, türk milli-mənəvi dəyərlərinin qorunduğu məbəd olan, bütün türk dünyasında analoqu olmayan AMEA Folklor İnstitutunun yaradılması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Buna görə də biz Folklor İnstitutu olaraq bütün dünya türklərinin ortaqlaşması, bütövləşməsi üçün böyük bir siyasi, milli-mənəvi prosesi - Heydər Əlirza oğlunun siyasətini davam etdiririk.

**“Azad Azərbaycan”.-**2011.-3 may.-№.61.-S.4.

# MÜQƏDDƏS MİSSİYA

**Ziya YUSİF-ZADƏ,**
MTN-in Heydər Əliyev adına Akademiyasının rəisi,
general-leytenant

**Qədim və kəşməkəşli tarixə malik Azərbaycan xalqı əsrlər boyu öz müstəqilliyi və dövlətçiliyi uğrunda mübarizə aparıb. Zəngin təbii sərvətlərinə, əlverişli geosiyasi mövqeyinə görə vətənimiz daim güclü dövlətlərin təzyiqlərinə, hərbi təcavüzünə məruz qalıb. Bununla belə, xalqımız öz mövcudluğunu qoruyub saxlaya bilib, ən qüdrətli düşmən ordularına qarşı mübarizədə hünər, qəhrəmanlıq nümunələri göstərib. Cavanşir, Babək, Şah İsmayıl Xətai kimi sərkərdə və dövlət xadimləri Azərbaycanın dövlətçilik tarixinin bütöv bir salnaməsini yaradıblar. Bu şəxsiyyətlərin şanlı ömür və fəaliyyət yolu xalqımızın vətənpərvərlik hisslərini gücləndirib, müstəqillik və dövlətçilik təcrübəsini zənginləşdirib, həyatımızın ən vacib, ən ümdə məqsədinə çevirib. Onların yaratdığı dövlətçilik ənənələri yüzilliklər boyu, o cümlədən XX əsr ərzində uğurla davam və inkişaf etdirilib. Ötən əsrin II yarısında bu müqəddəs missiyanı ümummilli liderimiz Heydər Əliyev həyata keçirib.**

Bütün müqəddəs missiya daşıyıcılarında olduğu kimi Heydər Əliyev şəxsiyyətində, fəaliyyətində də üçlü məna əks olunur. Birincisini hamı görür, təqdir edir, buna görə də xalq öz liderini sevir. İkincisini xalqın ziyalıları görür, Heydər Əliyev siyasətinin dərinliklərini, əsl mahiyyətini öyrənir və təbliğ edir. Üçüncü mənanın isə zamana ehtiyacı var - bu nadir şəxsiyyətin gələcəyə ünvanlanan layihələrinin ümummilli dəyəri və misilsiz mahiyyəti zamanı gələndə aydın olacaq. Bu gün bizə aydın olan birinci iki mənanı əsas götürərək Heydər Əliyev şəxsiyyəti ilə Azərbaycanın müstəqilliyi və dövlətçiliyi arasındakı üzvi əlaqəni hazırkı zaman kəsiyinin imkan verdiyi dərəcədə aydınlaşdırmağa çalışacağıq. Fikrimizcə, bu əlaqənin dialektikasına varmaq üçün Azərbaycan Respublikasının XX əsrdə inkişaf yoluna nəzər yetirmək yerinə düşərdi.

XX əsrdə iki dəfə - əsrin əvvəllərində Rusiya imperiyasının çökməsi və əsrin sonlarında Sovet İttifaqının süqut etməsi nəticəsində Azərbaycan müstəqillik qazanıb. Amma 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə bolşevik Rusiyasının təcavüzü nəticəsində öz müstəqilliyini itirdi, Sovet İttifaqının muxtar qurumlarından birinə - Azərbaycan Sovet Respublikasına çevrildi. Biz bunları yaradan daxili və xarici səbəblərdən, bu iki ildə baş verən parlament çaxnaşmalarından, bir neçə hökumət dəyişməsindən danışmaq istəmirik (bunlar bir ayrı yazının mövzusudur). Sadəcə olaraq, demək istəyirik ki, müstəqilliyi qorumaq, saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Müstəqilliyi qorumaq, dövlətçiliyi yaşatmaq üçün xalq müstəqilliyə hazır olmalı, millət kimi formalaşmalı və milli liderini yetişdirməlidir.

Sovet dövründə xalqımız müstəqilliyini müvəqqəti olaraq itirsə də, əbədi olaraq ümummilli liderini qazandı. 1969-cu ildə Azərbaycan rəhbərliyinə böyük iradəyə, güclü intellektə malik, ən başlıcası isə milli maraqlara sadiq şəxsiyyət - Heydər Əliyev gəldi. Onun respublika rəhbərliyinə gəlişi ilə müasir Azərbaycan tarixində, sözün əsl mənasında, yeni bir dövr başlandı. Hazırda müstəqil Azərbaycanın bütün əhəmiyyətli sənaye və istehsal sahələri, elm və mədəniyyət mərkəzləri Heydər Əliyevin adı ilə bağlıdır. Onların bir çoxunun əsası ümummilli liderin birinci rəhbərliyi dövründə qoyulub. İqtisadiyyatı bazis, təhsili, elmi, mədəniyyəti üstqurum hesab edənlər haqlıdır, ölkənin inkişaf etməsi, irəli getməsi iqtisadiyyat sahəsində qazanılan uğurlardan asılıdır. Heydər Əliyev də öz fəaliyyətində bu tezisi rəhbər tuturdu, xalqın, dövlətin gələcəyinin bugünün iqtisadiyyatından asılı olduğunu böyük zəka sahibi kimi çox gözəl görür, hiss edirdi. Odur ki, respublika iqtisadiyyatının inkişaf etdirilməsini öz siyasətinin əsas prioritetlərindən biri hesab edirdi. Bu zaman söhbət iqtisadiyyatın köhnə baza, potensial üzərində inkişafından getmirdi, bu yolla sürətli inkişafı təmin etmək çətin idi. Heydər Əliyev bu potensialı genişləndirmək, Azərbaycanın iqtisadiyyatını daha böyük, müasir baza üzərində qurmaq, tamamilə yeni mərhələyə çıxarmaq niyyətində idi. Bu, Heydər Əliyevin iqtisadi proqramının əsasını təşkil edirdi. Həmin dövrdə Azərbaycanda iqtisadiyyatın bütün istiqamətlərində - neft-qaz sahəsində, ağır, yüngül sənayedə, kənd təsərrüfatında köklü struktur və keyfiyyət dəyişiklikləri baş vermişdi, tərəqqinin və yüksəlişin təməli qoyulmuşdu. Bakıda, Gəncədə, Sumqayıtda yeni yaşayış massivləri salınır, bölgələrdə isə yeni qəsəbələrin, kəndlərin əsası qoyulurdu. İqtisadi inkişafla paralel olaraq insanların sosial rifahı da yaxşılaşırdı. Tərəqqi yolunda maneə olan neqativ hallara qarşı mübarizə sistemli şəkil almışdı. Sovet İttifaqında ilk olaraq, Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda korrupsiya və rüşvətxorluğa qarşı sözün əsl mənasında müharibə elan olunmuşdu.

Beləliklə, Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövrü yüksək inkişaf və tərəqqi ilə əlamətdar olmuşdur. 1969-cu ildə o, rəhbərliyə gələndə Azərbaycan SSR-i ən geridə qalmış, xammal respublikalarından biri idi. 1982-ci ildə Heydər Əliyev Moskvaya, yüksək dövlət vəzifəsinə gedəndə isə Azərbaycan ittifaqın inkişaf etmiş, özü-özünü dolandırmaq səviyyəsinə yüksəlmiş iki respublikasından birinə çevrilmişdi. 1969-1982-ci illər ərzində respublikada milli gəlirin ümumi həcmi 2,5 dəfə, sənaye istehsalı (həmçinin əmək məhsuldarlığı) 2 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 2,7 dəfə, xalq istehlak mallarının istehsalı isə 3 dəfə artmışdı. Azərbaycanda çox güclü iqtisadi, elmi-texniki potensial yaradılmışdı və müstəqillik əldə olunduqdan sonra Azərbaycan dövləti məhz bu potensialın üzərində quruldu.

Azərbaycanda müşahidə olunan tərəqqi meyilləri ictimai-sosial həyatın bütün sahələrinə - elmə, təhsilə, səhiyyəyə, mədəniyyətə də sirayət edirdi. Heydər Əliyev müdrik rəhbər kimi yalnız bugünkü nailiyyətlərlə kifayətlənmirdi, onun möhtəşəm fəaliyyəti həm də gələcəyə ünvanlanmışdı. Gələcəyi isə gənclər qurmalı idi. Odur ki, Azərbaycanın iqtisadi inkişafı, sosial rifahı ilə bərabər, azərbaycanlı gənclərin yüksək səviyyədə təhsil alması, savadlı olması, yaxşı mütəxəssis kimi yetişməsi də ümummilli liderin diqqət mərkəzində idi. Onun təşəbbüsü ilə Azərbaycanda onlarla yeni ali və orta təhsil ocaqları yaradılırdı, təhsilin maddi bazasının inkişaf etdirilməsi, təhsil müəssisələrinin tikintisi sahəsində xüsusi proqramlar həyata keçirilirdi. Respublikada yüksək ixtisaslı mütəxəssislərin hazırlanması sahəsində də yeni proqram mövcud idi. Bu proqrama uyğun olaraq, ilk illərdə yüzlərlə, sonra isə minlərlə azərbaycanlı gənc Sovet İttifaqının qabaqcıl ali təhsil müəssisələrinə göndərilmiş və burada Azərbaycan üçün zəruri olan ixtisaslara yiyələnərək yüksək səviyyəli mütəxəssis kimi Vətənə qayıtmışdı. Heydər Əliyev Azərbaycanda elmin inkişafına da böyük diqqət göstərir, fundamental elmin maddi-texniki bazasının yaradılmasına, yeni elmi istiqamətlərin açılmasına böyük əhəmiyyət verirdi.

Ümummilli lider mədəniyyətin və incəsənətin inkişafını Azərbaycan xalqının özünüdərkinin, gənc nəslin milli ənənələr üzərində yetişməsinin vacib bir şərti olaraq qəbul edirdi. Digər tərəfdən bu, ittifaq miqyasına və bütün dünyaya çıxmağın ən optimal yollarından biri idi. Azərbaycanın rəhbəri tez-tez təkrar edirdi ki, xalqı yalnız nefti, pambığı, iqtisadiyyatı ilə tanımırlar, xalqı həm də mədəniyyəti və incəsənəti ilə tanıyırlar. Odur ki, Heydər Əliyev Azərbaycanın mədəniyyətinin, incəsənətinin inkişafına xüsusi əhəmiyyət verirdi. Məhz onun nüfuzu sayəsində Azərbaycanın mədəniyyəti və incəsənət xadimləri keçmiş SSRİ-də geniş təbliğ edilir, onların ittifaqın ən yüksək mükafatları və adları ilə təltif olunmasına, dünya miqyasında tanınmasına nail olunurdu. Bütün bunlar xalqın gözü qarşısında baş verirdi, hər bir vətəndaş bunu görür, təqdir edirdi.

Ümummilli liderimizin Azərbaycana birinci rəhbərliyi dövründə gələcəyə ünvanlanmış layihələrindən biri də ordu quruculuğu, milli zabit kadrlarının hazırlanması ilə bağlı idi. Heydər Əliyev 1971-ci ildə böyük səylər nəticəsində Azərbaycanda hərbi kadrlar hazırlayan təhsil müəssisəsinin - görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi məktəbin yaradılmasına nail olmuşdu. O dövrdə Azərbaycan hər il təxminən 60 min gənci ordu sıralarına göndərirdi. Lakin onların böyük əksəriyyəti inşaat batalyonlarına düşürdü. Hərbi hissələrdə azərbaycanlı zabitləri barmaqla saymaq olardı. Odur ki, Bakıda belə bir hərbi məktəbin açılmasının böyük əhəmiyyəti var idi. Həmin dövrdə Heydər Əliyev azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunmasına da nail olmuşdu. Beləliklə, ümummilli lider Azərbaycanın müstəqillik əldə etməsindən 20 il öncə milli hərbi kadr hazırlığı üçün zəruri bazanın həmin dövrdə ən yüksək səviyyədə təşkilinə nail olmuşdu. Azərbaycan dövlətçiliyinin intellektual və hərbi potensialının formalaşdırılmasına yönəlmiş bu cəsarətli addımların əhəmiyyəti, müstəqil dövlət quruculuğundakı əvəzsiz rolu bugünün prizmasından daha aydın, daha qabarıq görünməkdədir.

Azərbaycan yenidən müstəqilliyə qovuşduqdan sonra da ordu quruculuğu sahəsində əsaslı və planlı addımlar yalnız Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra atıldı. Heydər Əliyev Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi yerli özünümüdafiə və könüllü batalyonlar adı altında fəaliyyət göstərən və siyasi sifarişləri yerinə yetirən silahlı dəstələri ləğv edərək, vahid komandanlıq sistemində təşkil olunan nizami ordunun yaradılması prosesinə start verdi. Həyata keçirilən təşkilati-quruculuq işləri, struktur dəyişiklikləri, NATO prinsiplərinin tətbiq edilməsi Silahlı Qüvvələri keyfiyyətcə yeniləşdirdi. Heydər Əliyevin gərgin fəaliyyəti sayəsində ölkəmizdə milli hərbi kadrların yetişdirilməsi üçün müasir tələblərə cavab verən hərbi təhsil sisteminin təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirildi. Azərbaycan Prezidentinin sərəncamları ilə 1998-ci ilin dekabrında MTN-in Akademiyası, 1999-cu ilin fevralında Ali Hərbi Akademiya, 2001-ci ilin avqustunda isə Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzi yaradıldı. Beləliklə, Azərbaycanın Silahlı Qüvvələri hərc-mərclik illərindəki siyasi oyunlardan və siyasi sifarişlərdən xilas olaraq, nümunəvi intizamı, yüksək peşəkarlığa malik kadrları, normal maddi-texniki təchizatı olan, ən əsası isə, suverenliyimizin təminatçısı, müstəqilliyimizin qarantı sayılan və vahid mərkəzdən idarə olunan nizami orduya çevrildi.

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı, müstəqilliyini elan etmiş Azərbaycan Respublikasının rəhbərliyinə gəlişi tarixi bir zərurət idi, xalqın tələbi və taleyin diktəsi ilə həyata keçirilirdi. 1991-ci ilin oktyabrında müstəqillik qazanmış və səriştəsiz rəhbərlərin günahı ucbatından məhvə sürüklənmiş bir ölkənin parçalanmaqdan qorunması, böhranlardan çıxarılması, vətəndaş müharibəsinin dayandırılması, hüquqi-demokratik dövlətin qurulması, dövlətə xas olan bütün atributların və institutların formalaşdırılması, bunun üçün qanunvericilik bazasının yaradılması, siyasi və iqtisadi islahatların paralel həyata keçirilməsi kimi mürəkkəb, taleyüklü məsələlərin həllinə yalnız Heydər Əliyev dühası qadir ola bilərdi. Ancaq Heydər Əliyev müasir dövrün tələblərinə cavab verən və qədim dövlətçilik ənənələrimizə uyğun gələn müstəqil Azərbaycan Respublikasını qura bilərdi. Bu gün inamla demək olar ki, 1993-cü ildə Azərbaycan xalqı Heydər Əliyevi hakimiyyətə dəvət etməsəydi və ümummilli liderimiz bu dəvəti qəbul edib müqəddəs xilaskarlıq missiyasını həyata keçirməsəydi, ölkəmiz şübhəsiz ki, təhlükəli siyasi eksperimentlərin keçirildiyi bir poliqona çevriləcəkdi. Yenicə müstəqillik qazanmış gənc respublika xarici təcavüzün və daxili irticanın əlində oyuncaq olacaq, xalqın sərvəti isə siyasi hakimiyyət uğrunda mübarizə aparan müxtəlif silahlı qruplar tərəfindən tar-mar olunacaqdı. Amma xalqın dəstəyinə arxalanan müdrik Heydər Əliyevin tutduğu siyasət bu fəlakətin qarşısını aldı və ölkədə demokratik dövlət quruculuğu prosesi başlandı.

Təbii ki, Heydər Əliyev öz zamanının və məkanının çərçivəsinə sığmayan nəhəng siyasətçi idi. O, bütün dünyanın fərziyyə hesab etdiyi məsələləri planlaşdıra və vaxtında reallaşdıra bilirdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində atəşkəsin əldə olunması, "Əsrin müqaviləsi"nin imzalanması, regionda Bakı - Tbilisi - Ceyhan, Bakı - Tbilisi - Ərzurum kimi beynəlxalq layihələrin həyata keçirilməsi məhz bu fenomenal şəxsiyyətin böyük uzaqgörənliyinin, diplomatik məharətinin və siyasi iradəsinin nəticəsi idi. Amma onun tarix və xalq qarşısında göstərdiyi misilsiz xidmətlərin həlledici və yeganə səbəbi fenomenal şəxsi keyfiyyətləri və böyük dövlətçilik təcrübəsi də deyildi, baxmayaraq ki, bunlar ən vacib şərtlərdən idi. Ümummilli liderin rəhbərliyi altında uzun müddət işləmiş bir insan kimi deyə bilərəm ki, o, Azərbaycana, onun milli maraqlarına həddən artıq bağlı idi, onun arzusu, amalı xalqının tərəqqisi, irəli getməsi idi. O, dünyada yaxşı nə varsa - gözəl təcrübədən qabaqcıl texnologiyalara qədər Azərbaycana gətirmək istəyirdi, Azərbaycan xalqını xoşbəxt görmək istəyirdi. Bu istək, bu bağlılıq, bu vətənpərvərlik olmadan, nə qədər böyük qabiliyyətlərə malik olsan belə, Vətənə, xalqa xidmət etmək mümkün deyildi. Heydər Əliyevin Vətənə, xalqa xidmətlərini sadalasaq, əmin olarıq ki, bir ömürdə bunlara nail olmaq mümkün deyildi, buna heç kimin enerjisi və qüvvəsi çatmazdı. Amma Heydər Əliyev nail olmuşdu, çünki o, böyük, fenomenal bir şəxsiyyət olmaqla bərabər, xalqının, Vətəninin vurğunu idi, öz böyük ömrünü də Vətəninə, xalqına xidmətə həsr etmişdi. Hazırda bu böyük şəxsiyyətin yolunu onun layiqli davamçısı möhtərəm Prezident İlham Əliyev uğurla və yaradıcılıqla davam etdirir.

Bu gün Azərbaycanın hərtərəfli inkişafı, xüsusilə də iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı dövlət siyasətimizin əsas prioritetlərindən biridir. 2003-cü ildən başlayaraq Azərbaycanda ayrı-ayrı sahələrin inkişafı üzrə dövlət proqramlarının qəbul olunmasına və həyata keçirilməsinə əsaslanan yeni iqtisadi siyasət strategiyası həyata keçirilir. Azərbaycan Prezidenti tərəfindən müəyyən edilmiş və elmi əsaslara söykənən bu strategiyanın həyata keçirilməsi bütün sahələrdə davamlı inkişafı təmin etmiş, qısa müddət ərzində ölkənin iqtisadi və sosial həyatında dünyada analoqu olmayan nailiyyətlər əldə olunmuşdur. Son 10 ildə real iqtisadi artım 4 dəfə olmuş, dövlət büdcəsi 15 dəfəyə qədər artmış, strateji valyuta ehtiyatları 34 milyard dollara çatmışdır. 2003 - 2010-cu illərdə Azərbaycanda orta iqtisadi artım tempi 17 faiz olmuş, ölkəmiz bu sahədə lider dövlətə çevrilmişdir. 2009-cu ildə dünyada neftin qiyməti düşsə də, ümumdünya maliyyə böhranı davam etsə də, Azərbaycan iqtisadiyyatı 9,3 faiz artmışdır. Bu, dövlət rəhbərliyinin təsdiq etdiyi proqramların, konseptual yanaşmanın həyatda öz əksini tapması ilə əlaqədardır.

Ümummilli liderimiz Heydər Əliyevin müdrik siyasətinin əsasında insan amili dururdu. Azərbaycanda bu gün də bu siyasət davam edir: hər şey insan üçün, hər şey Azərbaycan vətəndaşları üçündür. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət də Azərbaycan vətəndaşlarının sosial rifahının yüksəlməsinə, iqtisadi problemlərinin həll olunmasına, hər bir insanın yaxşı yaşamasına xidmət edir. Bu məqsədlə respublikada minimum əməkhaqqı, pensiyalar və müavinətlər mütəmadi olaraq artırılır. Hazırda Azərbaycanda orta əməkhaqqı 340 manatdır və cari ildə yenidən artırılması nəzərdə tutulur. Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, ölkədə onu narahat edən əsas problemlərdən biri də yoxsulluqdur. Bu problemi aradan qaldırmaq üçün hazırda Azərbaycanda xüsusi proqram həyata keçirilir. Əgər 2004-cü ildə yoxsulluq şəraitində yaşayanların sayı 49 faiz idisə, 2010-cu ildən etibarən 9 faiz təşkil etmişdir. Amma möhtərəm Prezident hesab edir ki, bu da çoxdur, Azərbaycanda yoxsul olmamalıdır.

Hazırda Azərbaycanın həlli müşkülə düşən yeganə problemi Dağlıq Qarabağ münaqişəsinin həlli, qaçqınların, köçkünlərin doğma yurdlarına qayıtmasıdır. Prezidentin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində Azərbaycan Dağlıq Qarabağ münaqişəsini beynəlxalq hüquq normaları əsasında həll etmək və ərazi

bütövlüyünü bərpa etmək üçün həm mənəvi, həm hüquqi, həm də hərbi imkanlara malikdir. Dünya birliyi Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, Azərbaycan iqtisadi və siyasi cəhətdən sürətlə inkişaf edir, ordusu güclənir. Bu gün qürurla demək olar ki, Azərbaycanın güclü ordusu var və dövlətin, Prezidentin qarşıya qoyduğu bütün vəzifələri yerinə yetirməyə qadirdir. Lakin möhtərəm İlham Əliyev regionda sülhün və sabitliyin təminatçısı olmuş dahi şəxsiyyətin - Heydər Əliyevin siyasi varisi, müdrik və müasir siyasətçi kimi qan, müharibə yolunu yox, sülh yolunu seçir, xalqları faciələrə sürükləmək istəmir, amma mövcud vəziyyətlə barışmaq niyyətində də deyil. Azərbaycan Prezidenti dəfələrlə bəyan etmişdir ki, vəziyyət belə davam edərsə və Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində sülh danışıqları erməni tərəfin qeyri-konstruktiv mövqeyi səbəbindən heç bir nəticə verməzsə, Azərbaycan başqa variantları nəzərdən keçirəcək, işğal altında olan torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəkdir.

Beləliklə, Heydər Əliyevin əsas mahiyyəti xalqa xidmətdən ibarət olan müdrik siyasəti bu gün də davam edir və xalqımız bu siyasəti, ulu öndərin siyasi varisini dəstəkləyir. Amma yuxarıda deyildiyi kimi, Heydər Əliyev səviyyəli dahi şəxsiyyətlərin missiyasında, fəaliyyətində elə məqamlar, elə mənalar var ki, bunları xalqın ziyalısı görməli və təbliğ etməlidir. Məsələn, Heydər Əliyev şəxsiyyətinin müasir Azərbaycan tarixində aparıcı rolu, Azərbaycanın dünya birliyinə inteqrasiyası, Azərbaycan diasporunun təşkilatlanması və s.

Xalq da, zaman da Heydər Əliyev səviyyəli liderləri çox ciddi ehtiyac olanda, yüz ildə bir dəfə yetişdirir. Əgər biz böyük şəxsiyyətləri onların dünyaya gəlməsi kontekstində yada salsaq görərik ki, belə liderlər tarixin ağır anlarında öz xalqlarının yanında olublar, xalqın taleyini təyin etmək missiyasını öz üzərlərinə götürüblər. Bəzən bu, quruculuq missiyası, bəzən də xilaskarlıq missiyası olur. Həmin şəxsiyyətlər ona görə tarixi hesab olunur ki, həmin tarixin ağırlığını öz çiyinlərinə götürmək və xalqı böhranlardan xilas etmək niyyətində və qüdrətində olurlar. Xalq onları yaratdığı kimi, onlar da xalqın tarixini yaradırlar. Heydər Əliyev Azərbaycanın 60-cı illərdə düşdüyü ağır vəziyyətdə həmin zamanın meydana çıxardığı lider olub. Həmin dövrdə zamanın və xalqın onun üzərinə qoyduğu vəzifələri Heydər Əliyev uğurla yerinə yetirib, öz missiyasını həyata keçirib və tarixi bir şəxsiyyətə - xalqın ümummilli liderinə çevrilib. Qeyd etmək lazımdır ki, Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründəki missiyası 90-cı illərdəki missiyasından formaca fərqli olduğu kimi, mahiyyətcə də fərqli idi. Birinci halda o, qurub-yaratmalı, neqativ hallara qarşı mübarizə aparmalı idi. Missiya ilk nəzərdən o qədər çətin deyildi, amma o, qapalı sistemdə ideoloji çərçivələr daxilində mübarizə aparmalı, gələcək müstəqilliyin iqtisadi-mənəvi əsaslarını yaradarkən həddindən artıq ehtiyatlı olmalı idi. Həmin zamanda, həmin məkanda müstəqillikdən danışmaq ölümə bərabər idi. 90-cı illərdə isə ideoloji çərçivələr olmasa da, Azərbaycanda müharibə şəraiti mövcud idi - qərbdən xarici təcavüz başlamış, şimalda və cənubda isə separatçılıq meyilləri güclənmişdi, dövlətçilik böyük təhlükə altında idi. Heydər Əliyev Azərbaycanın ümummilli lideri olaraq, quruculuq missiyasını uğurla həyata keçirdiyi kimi, xilaskarlıq missiyasını da yüksək səviyyədə həyata keçirdi. Burada maraqlı bir məqamı qeyd etmək yerinə düşərdi. Bir qayda olaraq, tarixi şəxsiyyətlərə tarixi məqamda ehtiyac yaranır və onlara öz missiyasını yerinə yetirmək üçün bir şans verilir. Amma Azərbaycan hər dəfə sınağa çəkiləndə, böhrana düşəndə Heydər Əliyevə ehtiyac yaranmışdır. Heydər Əliyevin böyüklüyü ondadır ki, o, yalnız hər hansı konkret bir məqamda gərəkli olan şəxsiyyət deyildi, zaman və məkan çərçivələrinə sığmayan, xalqına, Azərbaycana hər zaman gərəkli olan genişmiqyaslı şəxsiyyət idi.

Azərbaycan hazırda postsovet məkanında dünyaya fəal inteqrasiya edən ölkələrdən biridir. Azərbaycan türkdilli bir müsəlman ölkəsi olmaqla bərabər, tutduğu yol demokratiya, insan azadlığı, insan haqlarının qorunması yoludur. Bu yolun əsasını ümummilli lider Heydər Əliyev qoymuşdur və bu yol Azərbaycanın Avratlantik məkana inteqrasiyasını şərtləndirir. Azərbaycan 1991-ci ildə BMT-yə qəbul olunduğu zaman müstəqilliyini rəsmən elan etdiyi kimi, 2001-ci ildə Avropa Şurasına qəbul olunmaqla demokratik dəyərlərə sadiqliyini də elan etmişdir. Respublikada vətəndaş cəmiyyətinin inkişafı, insan hüquq və azadlıqlarının təminatı sahəsində qazanılan nailiyyətlər ümummilli liderin rəhbərliyi ilə həyata keçirilən siyasi islahatların, demokratik dəyişikliklərin nəticəsi idi. "Mən Azərbaycan Prezidenti kimi bu barədə qəti fikrimi bildirmişəm və bir də bəyan edirəm ki, demokratiyanın bütün tələblərini tətbiq etmişik və edəcəyik. Ancaq Azərbaycanın milli-mənəvi dəyərlərinə, mentalitetinə qarşı yönəldilmiş hərəkətlərin qarşısı alınacaqdır və qanun çərçivəsində ölçülər götürüləcəkdir" - deyən ulu öndərin idarəçilikdə müasir dünya təcrübəsinə söykəndiyi, proqressiv prinsiplərin tətbiqinə böyük əhəmiyyət verdiyi, ancaq onların milli maraqlar, milli-mənəvi dəyərlər konteksində həyata keçirilməsini dəstəklədiyi bir daha aydın olur.

Avropa Şurasının əsas tələblərindən biri də dini, milli tolerantlıq məsələsi idi. Yenicə müstəqillik qazanmış Azərbaycanda bu istiqamətdə vəziyyət göründüyü qədər sadə deyildi. Doğrudur, azərbaycanlılar tarixən beynəlmiləlçi xalq kimi ad çıxarmışlar, Azərbaycan dünyanın yeganə ölkələrindən biridir ki, burada heç zaman dini və milli ayrı-seçkilik, bu zəmində qarşıdurma halları olmamışdır. Azərbaycan xalqı müxtəlif dinlərin və millətlərin nümayəndələri ilə yüz illərlə bir ölkədə, bir şəhərdə, bir kənddə yaşamış, hətta düşmən erməniyə də

çörək verməyə qadir olmuşdur. Qarşıdurma halları isə yalnız ermənilər tərəfindən törədilmiş, XX əsrin əvvəllərində erməni - müsəlman qarşıdurması, sonlarında isə Qarabağ münaqişəsi kimi tarixə düşmüşdür. Yeri gəlmişkən, müstəqilliyin ilk illərində ölkədə rəhbərliyin səriştəsizliyi səbəbindən süni olaraq yaradılan milli ayrı-seçkilik halları da ümummilli lider Heydər Əliyevin müdrik siyasəti nəticəsində tezliklə aradan qaldırılmış, Azərbaycan xalqı vahid varlığına qayıtmışdı. Azərbaycanlılar öz adət-ənənələrinə, tarixlərinə görə vahid xalq olsalar da, öz dillərinə və təriqətlərinə görə fərqli qruplardan ibarətdirlər. Azərbaycanda azəri-türkləri, ləzgilər, talışlar və s. yaşayırlar, İslamın şiə və sünni təriqətlərini təmsil edirlər. Məhz bu qrupların inteqrasiyası ölkə miqyasında kiçik qloballaşma modeli idi və vahid Azərbaycan xalqını təşkil edirdi. Azərbaycanda milli və dini tolerantlığın kökü məhz bu inteqrasiyadan gəlirdi və Heydər Əliyev kimi müdrik siyasətçinin 30 ildən çox hakimiyyəti dövründə nadir bir fenomenə çevrilmişdi: xalqın monolitliyi möhkəmləndikcə, tolerantlığı da yüksəlmişdi. Ümummilli lider həmişə deyirdi ki, biz heç vaxt imkan verməyəcəyik ki, ölkəmizdə digər dini etiqaddan, digər millətdən olan adamlar - İslam dinindən və Azərbaycan millətindən olmayan adamlar hər hansı təzyiqə məruz qalsınlar.

Xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması və diaspor kimi formalaşması da ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Məlum olduğu kimi, vətəndən xaricdə yaşayan azərbaycanlıların sayı on milyonlarladır. Heydər Əliyev 1991-ci ildə, hələ Naxçıvanda işləyərkən dekabr ayının 31-ni dünya azərbaycanlılarının həmrəylik günü elan etmiş və ictimaiyyətin diqqətini bu məsələyə yönəltmişdi. Ümummilli lider xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan diasporunun təşkilatlanması məsələsinə dövlət səviyyəsində xüsusi əhəmiyyət verilməyə başladı.

Heydər Əliyev Azərbaycan diasporunun təşkilatlanması və güclü lobbiyə çevrilməsi məsələsini Azərbaycanın dövlət siyasətində yeni bir istiqamət kimi dəyərləndirirdi. Xarici ölkələrə səfərlərində Azərbaycan diasporu ilə görüşməyi, çıxış etməyi, soydaşlarımızı eşitməyi bir ənənəyə çevirmişdi. Ümummilli liderimizin 1997-ci ildə ABŞ-a rəsmi səfəri çərçivəsində bu ölkədə yaşayan azərbaycanlılarla görüşü isə diaspor quruculuğunda dönüş nöqtəsi oldu. Azərbaycan lideri dünya azərbaycanlılarına üz tutdu: Amerikada yaşayan azərbaycanlılar Azərbaycan haqqında düşünürlərmi? Azərbaycan Prezidenti soydaşlarımıza Amerika Prezidenti Kennedinin sözləri ilə müraciət etdi və dedi ki, siz düşünməyin Azərbaycan sizin üçün nə edib, düşünün ki, siz Azərbaycan üçün nə etmisiz. Onda Azərbaycan diasporu da irəli gedər, Azərbaycan dövləti də inkişaf edər.

Azərbaycanı düşünmək, Azərbaycanla yaşamaq isə ilk nəzərdən göründüyü kimi sadə məsələ deyil, bunun üçün ideya, mənəvi əsas lazımdır. Belə bir ideyanın - azərbaycançılıq ideyasının da müəllifi Heydər Əliyev oldu. Ümummilli lider bəyan etdi ki, dünya azərbaycanlılarının Azərbaycana bağlanması, Azərbaycanla yaşaması üçün mənəvi əsas ola biləcək bir ideologiya var - bu, azərbaycançılıqdır. Biz azərbaycanlılar bu ideologiyanı yaratmışıq, biz də yaşatmalıyıq, inkişaf etdirməliyik, onun əsasında da birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərə inteqrasiyasına nail olmaq deməkdir. Biz dünyaya inteqrasiya ediriksə, deməli bizim mənəvi dəyərlərimiz də ümumbəşəri dəyərlərə inteqrasiya etməlidir.

Müxtəlif mənbələrin üst-üstə düşən məlumatlarına görə, hazırda dünyada 50 milyona qədər azərbaycanlı yaşayır. Onların təxminən beşdən biri tarixi vətənlərindən kənarda yaşayır, Azərbaycan diasporunu təşkil edir. Amma Vətəndən kənarda yaşayan azərbaycanlıların birləşməsinə, real qüvvəyə çevrilməsinə mane olan amillər var. Azərbaycan Prezidenti Heydər Əliyev də bu məqamı nəzərə alaraq ABŞ-da Azərbaycan diasporu ilə görüşündə demişdi: "Bilirsiniz, xaricdə yaşayan azərbaycanlıların çoxu Azərbaycanda doğulmayıb. Nə olsun. Məgər, Amerikada yaşayan ermənilər Ermənistanda doğulub, məgər onlar Dağlıq Qarabağda doğulub? Amma ermənidirlər, ona görə də Ermənistan haqqında düşünürlər. Amerikada yaşayan azərbaycanlıların isə biri deyir, mən İranda doğulmuşam, o biri deyir mən Turanda doğulmuşam. Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısısan".

Azərbaycan diasporunun yaranması, birləşməsi üçün mənəvi əsas-azərbaycançılıq ideyası vacib olduğu kimi, bu ideyanın yaşaması, inkişaf etməsi üçün maddi əsas - aparıcı qurum lazımdır. Odur ki, ümummilli lider dünya azərbaycanlılarını müstəqil Azərbaycan dövləti ətrafında birləşməyə çağırırdı.

Ümummilli lider Azərbaycan dövləti ilə Azərbaycan diasporunun güclənməsini, bir-birinə arxa olmasını istəyirdi, hesab edirdi ki, Azərbaycan dövləti - Azərbaycan diasporu münasibətləri qarşılıqlı diqqət, qarşılıqlı dəstək əsasında qurulmalıdır. Azərbaycanın ümummilli lideri bu məsələ ilə əlaqədar bütün dünya azərbaycanlılarına müraciət etmişdi: "Əgər sən azərbaycanlısansa, bilməlisən: dünya azərbaycanlılarının bir müstəqil dövləti var - Azərbaycan, dünya azərbaycanlılarının bir tarixi Vətəni var - Azərbaycan. Dünya azərbaycanlıları öz tarixi vətənlərini, müstəqil dövlətlərini müqəddəs hesab etməli, onun ətrafında birləşməlidirlər". Məhz bu müraciətlərdən sonra yaxın və uzaq xaricdə yaşayan Azərbaycan diasporunun

təşkilatlanması prosesi vüsət aldı, Amerikada və Avropada yaşayan azərbaycanlılar öz təşkilatlarını yaratdılar və de-yure fəaliyyətə başladılar.

Təbii ki, kiçik bir məqalədə Heydər Əliyev şəxsiyyətinin qurub-yaratdıqlarını, Azərbaycan, xalq üçün etdiklərini, həyata keçirdiklərini və keçirmək istədiklərini tamamilə əhatə etmək, əks etdirmək mümkün deyil. Bu fenomenal şəxsiyyətin nəhəng fəaliyyəti Azərbaycanın bugününü yaratmaqla, adət-ənənələrini yaşatmaqla kifayətlənmir, eyni dərəcədə gələcəyə ünvanlanırdı. Heydər Əliyev bütün varlığı ilə inanırdı ki, "Azərbaycan dünyaya günəş kimi doğacaq". Buna görə də, qeyri-adi uzaqgörənlik qabiliyyətinə malik böyük siyasətçi, zəmanəsinin və millətinin dahi lideri kimi Azərbaycanın gələcəyini fikirləşərək özündən sonra siyasi kursu davam etdirəcək möhtərəm İlham Əliyev kimi müdrik siyasi liderin yetişdirilməsinin qayğısına qalmışdı. Bu gün ulu öndərin ölkəmizin inkişafı sahəsində başladığı nəhəng işlər, möhtəşəm layihələr - daxili sabitliyin inkişaf etdirilməsi və faktiki olaraq, dönməz edilməsi, siyasi həmrəyliyin və milli birliyin möhkəmləndirilməsi, iqtisadiyyatımızın dinamik inkişafı, xalqımızın sosial rifahının yüksəlməsi ulu öndərimizin layiqli davamçısı, Prezident İlham Əliyevin gərgin əməyi və siyasi iradəsi ilə həyata keçirilir, daha yüksək mərtəbələrə yüksəlir. Xalqımız da bütün bunları görür, dəyərləndirir və öz qəlbində ümummilli liderimizin əbədi abidəsini yüksəldir.

“**Azərbaycan**”.-2011.-4 may.-N 95.-S.5.

# MÜASİR AZƏRBAYCAN HEYDƏR ƏLİYEV İDEYALARI İLƏ UĞURLU İNKİŞAF YOLUNDADIR

**Bahar MURADOVA,**
Milli Məclis Sədrinin müavini,
YAP İdarə Heyətinin üzvü

**Cənubi Qafqaz regionunun lider dövləti olan, ildən-ilə Avropanın enerji təhlükəsizliyi məsələsində əhəmiyyətli tərəfdaşa çevrilən və dünya miqyasında nüfuzu artan Azərbaycanın əldə etdiyi inkişaf trayektoriyası istər dünya ölkələri, istərsə də beynəlxalq təşkilatlar tərəfindən xüsusi olaraq vurğulanır. Bir neçə il öncə başlayan qlobal maliyyə böhranının fonunda ölkəmizdə müşahidə olunan dayanıqlı iqtisadi inkişaf Azərbaycanda həyata keçirilən uğurlu daxili iqtisadi-sosial siyasətin bəhrəsi sayıla bilər. Bu, ölkəmizin inkişafının əsas təməl prinsipini özündə əks etdirən ulu öndər Heydər Əliyevin siyasi kursunun Azərbaycanda paralel olaraq bütün sahələr üzrə inkişafını təmin etməsini əsaslandıran amildir.**

Dayanıqlı iqtisadi siyasət, habelə müstəqil və tarazlı şəkildə həyata keçirilən xarici siyasət kursu Azərbaycan dövlətinin hər bir müstəvidə - istər daxili sabitliyin, inkişafın təminatında, istərsə də beynəlxalq dayaqların möhkəmləndirilməsində mühüm əhəmiyyət kəsb edir. Qeyd olunan sferalarda qısa zaman kəsiyində iqtisadi, mədəni, sosial və hərbi-siyasi sahədə qazanılan uğurlar ilk növbədə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Xüsusi olaraq vurğulanmalıdır ki, sadalanan nailiyyətlərin əldə olunması, müasir Azərbaycanın ərsəyə gəlməsi, müstəqilliyimizin qorunub saxlanılması, dövlətçiliyimizin inkişafı ulu öndərin ideyaları əsasında hazırlanan, dövlətimizin milli maraqlarına söykənən düzgün dövlət quruculuğu kursunun nəticəsidir.

Əldə olunan iqtisadi uğurların əsası hələ ulu öndər Heydər Əliyevin Sovet İttifaqı zamanında Azərbaycana rəhbərliyi dövründə qoyulmuşdu. Həmin dövrdə keçmiş İttifaq ərazisində aqrar ölkə kimi tanınan Azərbaycanın sənaye mərkəzinə çevrilməsi, qısa zaman kəsiyində ölkəmizdə mühüm sənaye komplekslərinin fəaliyyətə başlaması, respublikamızda həyata keçirilən əhəmiyyətli iqtisadi-siyasi layihələr bunu deməyə əsas verir.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanın həyatında yeni eranın təməli qoyuldu. 1990-cı illərin əvvəlində, gərgin bir zamanda yalnız nominal şəkildə özünü müstəqil aparmağı bacaran, reallıqda isə böyük dövlətlərin geosiyasi maraqlarının toqquşduğu bir müstəvidə de-fakto suverenlik hüquqlarından məhrum olan Azərbaycanın bugünkü müstəqil, müasir və qüdrətli dövlətə çevrilməsi prosesi dövlətçilik tariximizin qızıl hərflərlə yazılan səhifələri sayıla bilər. Məhz belə bir çətin durumda, Azərbaycanın müstəqilliyini itirmə astanasında, torpaqlarımızın xarici və daxili separatçıların və naqislərin fəaliyyəti nəticəsində bölünməsi təhlükəsi yarananda ulu öndər Heydər Əliyev Azərbaycanın suverenliyinin qarantına çevrildi, dövlətimizi qorudu və uçurumdan xilas etdi. Bu çətin prosesin bütün ağırlığı, məsuliyyəti ulu öndər Heydər Əliyevin, şərəfi və bəhrəsi isə bütün Azərbaycan xalqının payına düşdü. Azərbaycanın dövlət müstəqilliyini xilas etməklə yanaşı, ölkəmizi vahid ideologiya - azərbaycançılıq ideologiyası ətrafında birləşdirməyi bacaran ulu öndər Heydər Əliyev Azərbaycanda müasir dövlətçilik fəlsəfəsinin də əsasını qoydu. Bu, vahid, bölünməz və qüdrətli Azərbaycan dövlətinin əsasının qoyulduğu gün idi. Ulu öndər Heydər Əliyev xalqımızın keçmişini, öz milli dəyərlərinə bağlılığını çox yüksək qimətləndirirdi. Odur ki, öz milli kimliyimizin əldə olunması, tariximizin özümüzə qaytarılması istiqamətində mühüm addımlar atıldı.

Hər zaman istər dini, istərsə də etnik tolerantlığı ilə seçilən ölkəmizdə vahid Azərbaycan xalqının formalaşması gerçəkliyi məhz azərbaycançılıq ideyasına əsaslanır. Ulu öndər Heydər Əliyevin "Mən fəxr edirəm ki, azərbaycanlıyam" kəlamı ölkəmizdə yaşayan bütün xalqların vahid bir ideya, vahid bir gələcək, vahid bir dövlət ətrafında birləşməsi, bu uğurda mübarizəsini daha yüksək səviyyədə inkişaf etdirməsi üçün bir stimula çevrildi. Bu, həm də yüzilliklər ərzində formalaşan dini baxışların daha yüksək səviyyəyə qaldırılmasına yol açırdı. Həqiqətən də, bu gün tolerantlıqda nümunəyə çevrilən müasir Azərbaycan modeli bütün dünya ölkələri tərəfindən maraqla tədqiq olunur. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan ölkə Konstitusiyasında dinindən, irqindən asılı olmayaraq bütün vətəndaşların qanun qarşısında eyni məsuliyyətə malik olduğu təsdiq edilib. Bu isə həm də Azərbaycanda müasir dünyəvi ölkənin qurulmasını, demokratik prinsiplərə əsaslanan dövlətçilik kursunun inkişaf etdirilməsini sübut edən mühüm amildir. Digər tərəfdən, ölkə vətəndaşlarına Konstitusiya ilə vicdan azadlığının tanınması Azərbaycanda dini konfessiyalara qarşı dözümlülüyün sübutudur. Ümumiyyətlə, bu gün Azərbaycanın bir çox ən qədim demokratiya ənənələrinə malik

olan dövlətlərə belə dini-etnik tolerantlıq baxımından nümunə göstərilməsi gerçəkliyinin kökündə məhz Heydər Əliyevin təməlini qoyduğu bu ideyalar dayanır.

Azərbaycanın coğrafi baxımdan qərarlaşdığı məkanın Şərqlə Qərbin qovşağı olması ölkəmizdə mədəniyyətlərarası dialoqun yaranmasını zəruri edir. Ümummilli liderimiz hər zaman Azərbaycanın istər Şərq, istərsə də Qərb mədəniyyətinə və dəyərlərinə inteqrasiyasının zəruriliyini gündəmə gətirirdi. Bu proses isə birtərəfli deyil, qarşılıqlı yararlanma prinsipinə söykənir. Yəni Azərbaycan bu gün iki fərqli sivilizasiya arasında körpü rolunu oynamaqla Şərq və Qərb yarımkürələrində öz nüfuzunu gücləndirməkdədir. Bu ideya əsası ulu öndər tərəfindən qoyulan xarici siyasət kursumuzda da kifayət qədər özünü əks etdirir. Bu gün Azərbaycan BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, GUAM və bu kimi mötəbər təşkilatların tamhüquqlu üzvüdür. Ölkəmiz Avropa Birliyinin həyata keçirdiyi "Şərq tərəfdaşlığı" layihəsi çərçivəsində Avropaya inteqrasiya prosesinin önündə addımlayır. Sözsüz ki, bu uğurlar ilk növbədə Heydər Əliyevin xarici siyasət sahəsində apardığı islahatların və onun siyasi varisi olan ölkə Prezidenti cənab İlham Əliyevin bu istiqamətdə göstərdiyi titanik fəaliyyətin nəticəsidir. Çox da uzaq olmayan tarix sübut edir ki, xaotik və birtərəfli şəkildə istiqamətlənmiş xarici siyasət kursu dünyada və regionda aparıcı rol oynayan dövlətlərin qısqanclığına səbəb olur və Cənubi Qafqaz kimi həssas bir regionda dövlətlərin qütbləşmə oyununa sürüklənməsinə yol aça bilər. Müstəqilliyinin ilk illərindən biz Azərbaycanın belə problemlərlə üz-üzə qaldığının şahidiyik. O dövrkü rəhbərlərin tutduğu bu yolun ölkəni hansı təhlükələrlə üz-üzə qoyduğu heç kimə sirr deyil. Məhz Heydər Əliyev tərəfindən yürüdülən və əsası qoyulan balanslaşdırılmış və şaxələndirilmiş xarici siyasət kursuna önəm verilməsi bu təhlükələri aradan qaldırdı. İlk növbədə Rusiya və İran kimi dövlətlərlə münasibətlər tənzimləndi. Azərbaycanın postsovet məkanında yaradılan Müstəqil Dövlətlər Birliyinə daxil olması Rusiyanın ölkəmizə qarşı qısqanc mövqeyini neytrallaşdırdı. Bu addımla ulu öndər Heydər Əliyev Azərbaycanın çoxəsrlik şimal qonşusuna qarşılıqlı faydalanma prinsipinə söykənən münasibətlər təklif etdiyini göstərdi. Bakı-Tehran münasibətləri yeni keyfiyyət müstəvisinə keçirildi. Qardaş Türkiyə ilə münasibətlər daha da möhkəmləndirildi. Ankara Heydər Əliyev kimi dühanın simasında beynəlxalq arenada daha önəmli, daha çevik və daha tutarlı siyasət aparmaq üçün güclü müttəfiq qazandı. Heydər Əliyevin xarici siyasət kursu Mərkəzi Asiya dövlətləri ilə münasibətlərdə önəmli dönüş yaratdı. Dünənə qədər Azərbaycanda, o cümlədən, Azərbaycanla bağlı baş verən hadisələrə biganə yanaşan ölkələr artıq xalqımızın haqq işində Bakının etibarlı müttəfiqinə çevrildilər. Bununla bərabər, Azərbaycan türkdilli dövlətlər arasındakı münasibətlərin kəsişdiyi və təmərküzləşdiyi məkan rolunu oynamağa başladı.

Lakin Heydər Əliyevin xarici siyasət kursu yalnız regional dövlətlərlə qarşılıqlı əlaqələrin möhkəmlənməsini nəzərdə tutmurdu. Qərbin və ümumiyyətlə dünyanın aparıcı dövlətləri ilə münasibətlər yalnız beynəlxalq və regional qurumlar çərçivəsində deyil, habelə ikitərəfli sazişlər müstəvisində genişləndirilməyə başladı. İnteqrasiya strategiyası bu dövlətlərdə mövcud olan tarixi ənənələrdən yararlanaraq Azərbaycanda milli çalarlara malik olan, modernləşmə, müasirlik, novatorluq və yenilənmə prinsiplərinə söykənən cəmiyyətin yaradılmasına istiqamətləndi. Müasir dövrün tələblərinə cavab verən Konstitusiyanın və seçki qanununun qəbul edilməsi deyilənlərə əyani sübutdur.

Heydər Əliyevin hakimiyyətə qayıdışının ilk günlərində dövlət quruculuğu, demokratik institutların təşəkkül taparaq inkişaf etdirilməsi siyasət, sosial-iqtisadi, təhsil, mədəniyyət, səhiyyə, infrastruktur sahələrində önəmli islahatların keçirilməsinə start verildi. Şəksizdir ki, başlanılan islahatların uğurla həyata keçirilməsi üçün ilk növbədə Azərbaycanın iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsi tələb olunurdu. Çünki bu gün beynəlxalq münasibətlər sistemində siyasətin formalaşdırılmasının əsasında iqtisadi amillər dayanır. Yəni dövlətlərarası münasibətlərin inkişafında iqtisadi əlaqələrin varlığı olduqca mühüm rola malikdir. Əvvəlki hakimiyyətlərin anlaşılmaz, bir çox hallarda isə qərəzli və şəxsi mənfəət çərçivəsində yürütdüyü iqtisadi siyasət isə Azərbaycanı kataklizmlər uçurumuna yuvarlayıb, hiperinflyasiyanın tüğyan etməsinə, dövlət borclarının az qala ümumi daxili məhsulun həcmi səviyyəsinə qalxmasına, beləliklə də ölkənin müstəmləkə halına düşə biləcəyinə gətirib çıxarmışdı. Digər tərəfdən, Azərbaycanda daxili qeyri-sabit siyasi vəziyyət ölkəmizə xarici investisiyanın gəlişinin qarşısını alırdı. Hakimiyyət daxilindəki xaotik mənzərə ölkənin iqtisadi-siyasi durumuna da təsir edirdi. Heydər Əliyevin gündəmə gətirdiyi iqtisadi siyasət bu neqativ halların qarşısına etibarlı sipər çəkdi, qərəzli və kortəbii siyasət nəticəsində Azərbaycanın sərvətinin müxtəlif çeşidli fırıldaqçı xarici ünsürlərə "peşkəş" edilməsi prosesinə birdəfəlik xitam verildi.

Eyni zamanda, Azərbaycan iqtisadiyyatında əhəmiyyətli çəkiyə malik olan energetika sektoruna dünyanın ən aparıcı, ən nüfuzlu və sanballı şirkətləri cəlb edilməyə başladı ki, bu siyasətin təməlində Heydər Əliyevin yeni neft strategiyası dururdu. Belə ki, dərin iqtisadi tənəzzül prosesi yaşayan Azərbaycan üçün ilk növbədə dünya miqyasında daha cəlbedici olan neft sektoruna xarici sərmayələrin yatırılması prioritet vəzifə kimi qarşıya qoyuldu. Çünki ilkin mərhələdə yalnız bu yolla Azərbaycan iqtisadiyyatını tənəzzüldən xilas etmək və ölkənin

həm daxili potensial imkanlarını, həm də xarici kapitalı Qərblə ayaqlaşa biləcək müasir bir dövlətin formalaşmasına yönəltmək mümkün idi. Beynəlxalq aləmdə dünya siyasətinin ən görkəmli xadimlərindən biri sayılan Heydər Əliyevin verdiyi zəmanət kifayət etdi ki, ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Yaponiya və digər aparıcı dövlətlərin ən sanballı şirkətləri Azərbaycanın neft-qaz sektoruna sərmayə yatırsınlar. Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin çəkilməsiylə start götürən yeni neft strategiyasının uğurları sonradan Bakı-Tbilisi-Ərzurum qaz kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu kimi digər transmilli layihələrin inşasına yol açdı. Bu isə Ermənistanın təcavüzü nəticəsində işğal olunan Dağlıq Qarabağın və digər rayonlarımızın azad edilməsi istiqamətində aparılan siyasətin daha yüksək səviyyədə dəstəklənməsinə gətirib çıxardı.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan xarici siyasət kursu bu gün Prezident İlham Əliyev tərəfindən daha da modernləşdirilir, müasir beynəlxalq münasibətlər sisteminə uyğunlaşdırılır və inkişaf etdirilir. İstər daxili, istərsə də xarici arealda sabit, milli maraqlara söykənən, problemlərin həllinə istiqamətlənən, vətəndaşların hüquq və azadlıqlarının genişləndirilməsini özündə əks etdirən və ən əsası münasibətlərin və əlaqələrin normal tərəfdaşlıq çərçivəsində inkişafına nail olan siyasətin yürüdülməsi ölkəmizin bütün mənalarda yüksək nailiyyətlərə imza atmasına şərait yaradıb. Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilən xarici siyasət kursu Azərbaycanın yerləşdiyi Cənubi Qafqaz bölgəsində lider, Avropa və digər qitələr üçünsə kifayət qədər ciddi partnyor kimi qəbul edilməsinə yol açıb. Azərbaycan bu gün də dünya dövlətləri ilə açıq və ikitərəfli münasibətlərin inkişafını özündə ehtiva edən xarici siyasət kursu yürüdür. Azərbaycan hakimiyyətinin ortaya qoyduğu bu məramın aydın və səmimi olması nəticə etibarı ilə dünya tərəfindən təqdir edilir. Məsələlərə yalnız beynəlxalq hüquq və milli maraqlar çərçivəsindən baxma prinsipi Azərbaycanın həm Qərb, həm də Şərq ölkələri ilə eyni dərəcəli münasibətlər qurmasına imkan verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər zaman ölkəmizin bu prinsiplərə sadiq qalacağını xüsusi olaraq vurğulayır. Bu məsələlərə toxunan dövlət başçısı bildirmişdir: "Azərbaycan beynəlxalq arenada özünə layiq yerini tuta bilmişdir. Xarici tərəfdaşlarımızın, dostlarımızın sayı gündən-günə artır. Azərbaycan çox gözəl beynəlxalq imicə malikdir. Bizim bütün xarici siyasətimiz bir məqsədi güdür ki, Azərbaycanın milli maraqları maksimum dərəcədə təmin olunsun, Azərbaycan dövləti güclənsin və Azərbaycan xalqı daha da yaxşı yaşasın".

Birmənalı şəkildə vurğulamaq lazımdır ki, Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət kursunun milli mənafeyə əsaslanması uzun illər erməni yalanlarının, şər, böhtan dolu təbliğatın qarşısında iradə nümayiş etdirən ölkəmizin haqq səsinin dünyaya daha aydın çatdırılmasında müstəsna rola malikdir. Dünya ictimaiyyəti Azərbaycanın ədalətin və həqiqətin bərpası uğrunda mübarizə apardığını anlayır. Şübhəsiz, bütün bu dövr ərzində aparılan məqsədyönlü xarici siyasət Azərbaycanın dünya miqyasında mövqelərinin həddindən artıq möhkəmləndirilməsində başlıca rol oynayıb. Bunun nəticəsində də Azərbaycan dünyanın aparıcı dövlətlərinin yaxın tərəfdaşına çevrilib, ölkəmiz artıq Avropanın əsas enerji mənbələrindən birinə çevrilib. Azərbaycanın dünya miqyasında yaxın tərəfdaş kimi qəbul olunmasında ən mühüm şərt ölkəmizin əldə etdiyi iqtisadi inkişaf, potensial və siyasi sabitlikdir. Bundan başqa, ölkəmizin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılmasında mühüm strateji mövqeyə malik olması, dünyanın enerji təhlükəsizliyində oynadığı rol hətta böyük ölkələri də Azərbaycana qarşı münasibətdə diqqətli mövqe tutmağa sövq edir. Azərbaycan Prezidenti İlham Əliyev hər zaman ölkəmizin hətta kökündə iqtisadiyyat dayanan məsələlərə belə öz milli maraqları müstəvisindən yanaşdığını bildirmişdir.

Heydər Əliyevin ideyalarına söykənən xarici siyasət Dağlıq Qarabağ münaqişəsi ətrafında cərəyan edən hadisələrdə də öz bəhrəsini verməkdə davam edir. Azərbaycanın dünya miqyasında getdikcə artan siyasi və iqtisadi nüfuzu, beynəlxalq aləmdə baş verən proseslərə təsir imkanları hazırda bu problemin həllinə yeni, ədalətli baxışın formalaşmasını şərtləndirir. Təsadüfi deyil ki, həm BMT çərçivəsində, həm də ATƏT məkanında Azərbaycanın haqq səsinə dəstək verən ölkələrin sayı gündən-günə artmaqdadır. Bu, həm də iqtisadi və siyasi tənəzzüldən xilas ola bilməyən Ermənistanla müqayisədə bəşəriyyətə müasir və mütərəqqi siyasi düsturlar təklif edən Azərbaycan dövlətinə olan xoş münasibətin təzahürüdür.

Dünyada ən güclü hərbi blok sayılan NATO standartlarına uyğun müasir ordunun formalaşdırılması, onun ən yüksək texniki və hərbi avadanlıqla təchiz olunması da ölkə rəhbərliyi tərəfindən davamlı olaraq həyata keçirilən siyasi kursun təzahürüdür. Heç də təsadüfi deyil ki, dövlət müstəqilliyimizə təhlükə yarada biləcək istənilən maneəni dəf etməyə qadir olan qüdrətli Azərbaycan ordusu məhz vaxtilə ölməz Heydər Əliyevin dahi uzaqgörənliklə araya-ərsəyə gətirdiyi hərbi məktəblərin və müəssisələrin imkanlarından səmərəli şəkildə bəhrələnməkdədir. Əlbəttə, məmnunluq yaradan faktdır ki, BMT-nin sülhməramlı qüvvələrinin tərkibində bir çox münaqişə bölgələrində - Kosovoda, İraqda, Əfqanıstanda əsgər və zabitlərimizin döyüş hazırlığı təşkilatın rəhbərliyi tərəfindən dəfələrlə nümunə göstərilib.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, bütün bu uğurlar eyni zamanda möhkəm ideoloji təmələ bağlı olub zərgər dəqiqliyi ilə ölçülmüş düzgün siyasi kurs üzərində bərqərar olmuşdur. Daim öz xalqının dəstəyinə arxalanan ulu öndər Heydər Əliyevin banisi və lideri olduğu Yeni Azərbaycan Partiyası bu gün ümummilli liderin ideyalarını daşıyan və dönmədən həyata keçirən ən güclü siyasi qüvvə kimi formalaşmışdır. Elə bu baxımdan da Heydər Əliyevin ideyalarına sadiq və hazırda respublikada hakim siyasi lider olan Yeni Azərbaycan Partiyasının rolu və intellektual potensialı gündən-günə artmaqdadır və bütün bunlar ilk növbədə ölkəmizin dünyanın inkişaf etmiş qabaqcıl dövlətləri sırasına çıxarılması üçün səfərbər olunub. Yarım milyondan artıq üzvü olan və ümumxalq partiyası sayılan YAP hər zaman xalqımızın əsas istinad nöqtəsinə çevrilməyi bacarıb. Ölkəmizdə keçirilən seçkilər bunu bir daha sübuta yetirib. Bu yaxınlarda Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi iştirak etdiyim ATƏT Parlament Assambleyasının qış sessiyasında qurumun ən yüksək çinli rəhbərlərinin dilindən ölkəmizdə keçirilmiş 2010-cu il parlament seçkilərinin müasir dünya standartlarına tam uyğun gəldiyi və Azərbaycanda demokratikləşmə prosesinə böyük bir təkan verdiyi barədə səslənmiş rəylər, düşünürəm ki, məhz bu həqiqəti ortaya qoyur.

İnkar etmək mümkün deyil ki, Azərbaycan xalqının rifahının yüksəldilməsinə, daxili sabitliyin qorunmasına və cəmiyyətin bütün sahələrində enerji, nəqliyyat, turizm, təhsil, səhiyyə və digər sahələrdə önəmli layihələrin həyata keçirilməsinə istiqamətlənmiş siyasət Heydər Əliyev ideyalarının tərkib hissəsidir. Bütün bu işlərdə ulu öndərin adını daşıyan fondun fəaliyyəti də xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanda hər il yüzlərlə yeni-yeni müasir tipli bağçaların, məktəblərin, səhiyyə ocaqlarının inşası və ya əsaslı təmiri məhz Heydər Əliyev Fondu tərəfindən maliyyələşdirilir. Azərbaycanın millət vəkili, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bir tərəfdən Azərbaycan həqiqətlərini beynəlxalq arenada təbliğ edir, Heydər Əliyev irsinin öyrənilməsi sahəsində önəmli layihələr həyata keçirir, digər tərəfdən isə çoxşaxəli fəaliyyəti ilə Azərbaycanda modern cəmiyyətin qurulmasına öz dəyərli töhfəsini verir.

**Beləliklə, düşünürəm ki, Heydər Əliyev ideyalarına söykənən xarici siyasət kursu Azərbaycanın daha təkmil bir dövlət kimi yeni və qüdrətli imicini və nüfuzunu formalaşdırmaqla yanaşı həm milli-mənəvi dəyərləri, həm də müasirliyi özündə əks etdirən üçrəngli Azərbaycan bayrağının daha uca zirvələrdə dalğalanacağına əminlik yaradan başlıca amildir.**

“**Azərbaycan**”.-2011.-4 may.-N95.-S.4.

# AZƏRBAYCAN XALQININ TARİXİ... ÜMUMMİLLİ İDEALLARI... VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI

**Nizami CƏFƏROV,**
Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri,
AMEA-nın müxbir üzvü, Milli Məclisin deputatı

**Azərbaycan xalqı dünyanın o xalqlarındandır ki, zəngin (və şərəfli!) bir tarix yaşamaqla yanaşı, bu tarixi onun ən müxtəlif dövrlərində, mərhələlərində bütün aydınlığı (və dərinliyi) ilə dərk eləməyə çalışmış, gələcəyə həmişə ümidlə (və inamla!) baxmışdır. Xalq yalnız böyük mütəfəkkirlərinin, elm və sənət xadimlərinin, dövlət adamlarının deyil, ümumkütləvi düşüncənin səviyyəsində də tarixə kifayət qədər həssas olmuş, öz tarixi yaddaşını milli mənliyinin, mentalitetinin - mənəvi xarakterinin üzvü tərkib hissəsi kimi qoruyub saxlamışdır.**

Müxtəlif təzyiqlərə, müdaxilələrə ən çox məruz qalan xalqlardan olan Azərbaycan xalqı ərazi bütövlüyünü, siyasi birliyini itirsə də, tarixi təfəkkürünün bütövlüyünü heç zaman itirməmişdir. Və bu milli tarixi təfəkkürün bütövlüyüdür ki, xalq özünün milli ideallarına həmişə sadiq qalmış, onların elmi- nəzəri yekunu olaraq azərbaycançılıq ideologiyasını yaradıb inkişaf etdirmişdir.

* * *

Azərbaycan xalqı öz mənşəyi etibarilə türk xalqlarından biridir. Və onun etnik tarixi ümumtürk tarixinin üzvü tərkib hissəsidir.

Türklər müstəqil bir etnos olaraq tarix səhnəsinə təxminən e.ə. III minilliyin ortalarında çıxmışlar. O dövrə qədər Altay etnik birliyinin tərkibində olan türklər bir neçə min illik diferensiasiya tarixi yaşamışlar.

Türk etnosunun hansı coğrafiyada formalaşması tarixşünaslıqda nə qədər mübahisəli olsa da, arqumentlərin çoxu diqqəti məhz Mərkəzi Asiyanın geniş çöllərinə yönəldir. E.ə. III minilliyin ortalarından e.ə. I minilliyin ortalarına qədər həmin coğrafiyanı məskunlaşdıran, öz etnik mənəvi xarakterlərini formalaşdıran, böyük epos mədəniyyəti yaradan türklər e.ə. I minilliyin sonlarına doğru, tamamilə təbii olaraq Şimala, Cənuba, Şərqə və xüsusilə Qərbə yayılmağa başlayırlar.

Şimal soyuq idi. Cənub güclü Çin etnosları ilə diplomatik münasibət tələb edirdi.

Şərqdə cəlbedici bir şey olmadı.

Və tarix türklərin qarşısına Qərbə doğru uzanan intəhasız bir yol açmışdı. Özü də Cənub- Qərbə, yaxud Şimal- Qərbə yox, məhz birbaşa Qərbə!.. Qərb yaşayış üçün əlverişli (və boşluq!) idi.

Türklərin, yaxud onların da daxil olduğu etnik birliklərin Şərqdən Qərbə doğru axınlarının daha əvvəlki, hətta e.ə. X minilliyə qədər qədimləşdirilən dövrlərdən başlanması barədə təsəvvürlər mövcuddur. Bu təsəvvürlərə müəyyən qədər ciddi yanaşmağa əsas verən arqument Avropada türklərlə etnik qohum olan xalqların - macar, fin, eston və s.- lərin mövcudluğudur ki, onların bu qədər uzaq Qərbə düşmələrinin tarixinin e.ə. I minilliyin sonlarından sonraya aid olmasını qəbul etmək çətindir. Başqa bir arqument də vardır... Türklər eramızın ilk əsrlərindən başlayaraq Qərbə doğru böyük kütlələrlə, inamla, sanki yüzillər boyu tanıdıqları yollarla gedirmiş kimi gedirlər. Qarşılaşdıqları xalqlarla çoxtərəfli, geniş miqyaslı əlaqələrə girmələri türklərin bu hərəkatının kortəbii bir axın yox, qanunauyğun proses olduğunu göstərir...

I minilliyin ortalarında, Qərb türkləri Atillanın başçılığı ilə german və slavyan tayfalarını öz ətraflarında birləşdirərək Roma imperiyasını dağıdıb Avropa tarixinin yeni epoxasını başlayanda Şərq türkləri hələ də Mərkəzi Asiyada öz tarixi vətənlərinin keşiyini çəkir, Şərq dünyasının etnik- mədəni mənzərəsinin formalaşmasında fəal iştirak edirdilər. Və Altaylardan Qərbi Avropaya qədər yayılan bu möhtəşəm etnosun ilkin diferensiasiyası da I minilliyin əvvəllərindən başladı. Qərbə doğru axın edən türkləri tarix tədricən qıpçaqlar kimi tanıdı... Mərkəzi Asiyada isə qıpçaqlarla yanaşı oğuzlar və qarluqlar vardı.

Asiyadan Şərqi Avropanın geniş çöllərinə keçən qıpçaq türkləri - hunlar hələ eramızın ilk əsrlərindən yalnız Qərbə yox, Şimala və Cənuba doğru da yayıldılar... Və nəticə etibarilə, Şimalda çuvaşların, tatarların, başqırdların və s., Cənubda Azərbaycan türklərinin, kumukların, qaraçay - balkarların və s. etnik əsası qoyuldu.

Mərkəzi Asiyada qalan türklərə gəldikdə isə, qıpçaqlar - Altay, qazax, qırğız və s.; qarluqlar - özbək, uyğur və s.; oğuzlar isə türkmənlərə, sonradan Asiyaya keçərək Azərbaycan, Türkiyə türkləri və s. bölündülər. Və beləliklə, I minilliyin sonu II minilliyin əvvəllərindən etibarən türk etnosunun diferensiasiyasının ikinci dövrü başlandı: qıpçaqlar, oğuzlar və qarluqlar müasir türk xalqlarına parçalandılar...Ancaq qeyd etmək lazımdır ki,

birinci diferensiasiya kimi ikincisi də yüz illər boyu davam edən mürəkkəb bir proses olub ortaq kökləri ən diferensial dövründə belə qoruyub saxlamışdır.

Türklərin etnik- coğrafi diferensiasiyasının bölünməsinin məhsulu olan Azərbaycan xalqının - Azərbaycan türklərinin əsasını e.ə. I minilliyin sonu eramızın I minilliyinin əvvəllərində Şimaldan- Şərqi Avropadan Qafqaza gələn qıpçaq türkləri - hunlar müəyyənləşdirməyə başlamışlar.

Bununla belə Azərbaycan tarixşünaslığında türklüyün tarixini müasirləşdirməklə yanaşı daha qədim dövrlərə aparıb çıxarmaq cəhdləri də vardır. Hətta bir sıra araşdırıcılar, kifayət qədər sübutları olmasa da, türklərin dünyaya ümumiyyətlə Ön Asiyadan yayıldığı iddiasındadırlar. Biz bu cür iddialara dərhal "qeyri - elmi" damğası vurub üstündən keçmək fikrində deyilik, ancaq onu da əminliklə deyə bilərik ki, Azərbaycan xalqının təşəkkülünə eramızdan əvvəlki minilliklərə aid etnik münasibətlər (və tarix!) elə bir təsir göstərməmişdir.

* * *

Azərbaycanın etnik tarixi Azərbaycan xalqının tarixindən qədimdir.

E.ə. II minillikdən etibarən Cənubdan gələrək tədricən Qafqazda məskunlaşan Qafqaz etnosu- indiki Dağıstan xalqlarının ulu babaları bu coğrafiyanın bizə məlum olan ilk sakinləri idilər. Və onların etnik diferensiasiyasının məhz burada - Şimali Qafqazda getməsi də bunu təsdiq edir. E.ə. II minilliyin sonu I minilliyin əvvəllərində isə Qafqaza İran etnosları gəldilər... Onlar coğrafiyanın yerli sakinlərini Şimala - Böyük Qafqaz dağlarının ətəklərinə doğru sıxışdırmağa başladılar. Ancaq İran etnoslarının əsas mədəniyyət mərkəzləri İranın xeyli Cənubunda olduğuna görə Qafqazda əvvəllər geniş yayıla, kütləvi olaraq məskunlaşa bilmədilər. Ancaq İran gücləndikcə İran etnosları vaxtaşırı olaraq Qafqaza müdaxiləni davam etdirdilər...

Azərbaycan xalqının əsası qıpçaq türklərinin- hunların Qafqaza (və daha Cənuba) ardıcıl axını (və bu coğrafiyada məskunlaşması) ilə qoyuldu. Eramızın ilk əsrlərində artıq Qafqaz əhalisinin əksəriyyətini təşkil edən tanrıçı türklər I minilliyin ortalarında artıq regionun əsas siyasi qüvvəsi idilər. Böyük mədəniyyətə, beynəlxalq münasibətlər təcrübəsinə və yüksək idarəçilik qabiliyyətinə malik türklər tezliklə yerli etnosları öz ətrafında birləşdirməyə nail oldular. Onların Qafqazda xüsusi nüfuz qazanmalarının bir səbəbi də vaxtaşırı olaraq Şimaldan - Şərqi Avropadan gələn türk- qıpçaq axınları hesabına daha da güclənmələri idi... Zatən tanrıçı olan Qafqaz türklərinin müəyyən qismi tədricən xristianlaşmağa və xristianlığın atributlarını qəbul eləməyə başladılar. Bu onları xristianlığı qəbul etmiş qeyri- türk mənşəli qafqazlılarla da yaxınlaşdırdı. Və heç də təsadüfi deyil ki, tarixşünaslıqda xristian türklərin sonralar bir sıra Qafqaz xalqları içərisində əriməsi, məsələn, ermənilərin, gürcülərin etnik tərkibinə daxil olması barədə fikirlər mövcuddur. Ancaq belə bir hal olmuşdursa da, epizodik səciyyə daşımışdır. Çünki Azərbaycan xalqının təşəkkülü tarixində birinci dövr məhz tanrıçı qıpçaq türkləri, onların Azərbaycan türklüyünün ilk əsasını təşkil etməsi ilə əlamətdardır.

İkinci dövr ərəblərin Qafqaza hücumu, İslam dininin yayılması və bunun ardınca müsəlman oğuz türklərinin Azərbaycanın Cənubuna və Şimalına (Qafqaza) yürüş edərək buralarda məskunlaşması ilə başlayır. Və oğuzların bu yeni vətən tutma hərəkatı II minilliyin əvvəllərində Şərqi Anadolunu da əhatə edir.

Azərbaycan xalqının təşəkkül tarixini özünəməxsus şəkildə əks etdirən "Dədə Qorqud" eposu da təsdiq edir ki, Qafqazda oğuzların müzəffər yürüşləri qarşısında əsas maneə qıpçaq türkləri Şərqi Anadoluda isə yunanlar olmuşlar. Eposda müasir Qafqaz xalqlarından heç birinin adının çəkilməməsi oğuzların onlara əhəmiyyət verməməsini, yaxud bu xalqların VII- XI əsrlərdə, regionda heç bir əhəmiyyətli siyasi rola malik olmadıqlarını göstərir.

Nə qədər İslam təəssübkeşi olsalar da müsəlmanlığı yenicə qəbul etmiş gəlmə oğuz türkləri öz tarixi tanrıçı yaddaşları (az fərqli dilləri, etnik psixologiyaları və həyat tərzləri) ilə yerli qıpçaq türklərinə kifayət qədər anlaşıqlı idilər... Xüsusilə onların əksəriyyətini təşkil edən tanrıçı qıpçaqlara... Bununla belə regionda İslamın yayılması zərurəti, eləcə də sayca çoxluq və siyasi mütəşəkkillik oğuzlara xüsusi tarixi səlahiyyət verdiyinə görə yerli qıpçaqlar çox keçmədən gəlmə oğuzların təsirini qəbul etməli oldular. Xristian qıpçaqlar isə kilsə vasitəsi ilə Qafqazdakı, eləcə də Şərqi Avropadakı dindaşları ilə müəyyən əlaqələrini nəzərə almasaq, təcrid olunaraq etnik simalarını itirdilər.

Azərbaycan xalqının təşəkkülü tarixinin üçüncü-sonuncu dövrü I minilliyin əvvəllərindən - səlcuq (oğuz) türklərinin Azərbaycanın həm Şimalında, həm də Cənubunda müəyyən etnocoğrafi (və siyasi) təmərküzləşmə yaratmalarından başlayıb həmin minilliyin ortalarınadək - Mərkəzi Asiyadan (Türküstandan) gələn türk axınlarının sona çatmasına qədər davam edir. Bu dövr onunla əlamətdardır ki, Azərbaycan xalqının etnik mənşəyində dayanan qıpçaq ünsürü artıq hər cür zənginləşmədən məhrum olduğu halda oğuz ünsürü ardıcıl olaraq zənginləşir. Və nəticə etibarilə, xalqın etnik tərkibində mütləq dominantlığını təmin edir... Bu gün Azərbaycan xalqının antropologiyasında, mədəniyyətində, dilində və s. qıpçaq elementləri nə qədər az olsa da,

hər halda mövcuddur. Bununla belə xalqın əsas etnogenetik təbiətini oğuz türkləri müəyyən edir. Və Azərbaycan xalqının təşəkkül tarixi onun oğuz türklərindən olan türkmənlərlə Türkiyə türklərindən ayrılması, hər üç türk- oğuz xalqının II minilliyin ortalarında tarix səhnəsinə müstəqil xalqlar kimi çıxması ilə sona çatır.

Ancaq nəzərə alınması vacib olan bir məsələ də vardır... Bu, ən qədim zamanlardan Azərbaycanda məskunlaşmış, eləcə də buraya sonralar gəlmiş Qafqaz, İran və s. mənşəli etnosların türk mənşəli Azərbaycan xalqı ilə qaynayıb qarışması məsələsidir ki, həmin proses Azərbaycan xalqının bütün təşəkkül tarixi boyu getmişdir.

* * *

Azərbaycan xalqının II minilliyin ortalarından başlayan tarixini milli birlik, ərazi bütövlüyü və dövlət müstəqilliyi uğrunda mübarizə tarixi kimi səciyyələndirmək olar. Türk (və müsəlman) dünyasının üzvü tərkib hissəsi olan azərbaycanlılar XVI əsrin əvvəllərində Şah İsmayıl Xətainin rəhbərliyi ilə Azərbaycan səfəvilər dövlətinin əsasını qoydular ki, bu dövlət yalnız türk (və müsəlman) dünyası ilə deyil, bütün dünya ilə bu və ya digər dərəcədə bağlı idi. Paytaxtı əvvəllər Təbriz olan, Azərbaycanın, demək olar ki, bütün coğrafiyasını əhatə edən bu dövlətin başında Azərbaycan türk hökmdarları dayanırdılar. Fərmanlar dövrün beynəlxalq dilləri ilə yanaşı Azərbaycan türkcəsində də verilirdi. Milli mədəniyyətin inkişafı üçün böyük işlər görülürdü... Ancaq xarici müdaxilələr (və milli mütəşəkkilliyin zəifliyi) ucbatından Azərbaycan səfəvilər dövləti öz tarixi missiyasını davam etdirə bilmədi. XVIII əsrin ortalarında başqa bir Azərbaycan türk hökmdarı Nadir şahın müstəqil Azərbaycan dövlətini möhkəmləndirmək uğrunda mübarizəsi də uğursuzluqla nəticələndi. Və ölkənin ərazisində biri digəri ilə vuruşan çoxlu kiçik dövlətlər - xanlıqlar meydana çıxdı.

Bununla belə XVI əsrin əvvəllərindən XVIII əsrin sonlarına qədər Azərbaycan xalqı öz mədəniyyətinin İntibah dövrünü yaşadı... Onlarla irihəcmli folklor əsərləri - dastanlar, xüsusilə "Koroğlu" eposu məhz həmin əsrlərdə yarandı. Klassik (ümumşərq) üslubunun ümumən mədəniyyətdə öz yerini xalq üslubuna və ya milli üsluba verməsi - canlı xalq dilində yazan böyük sənətkarların yetişməsi milli intibahın təzahürü idi.

XVII- XVIII əsrlər Azərbaycan xalqının tarixinin ən parodoksal dövrü sayıla bilər... Bir tərəfdə ümummilli ruh, mənəvi- mədəni birlik və müstəqillik hisslərinin güclənməsi; digər tərəfdə isə siyasi dağınıqlıq, mərkəzi dövlətin olmaması... Bunun nəticəsində, artıq bütöv bir millət kimi formalaşmış azərbaycanlılar - Azərbaycan türklərinin tarixi vətəni XVIII əsrin sonu XIX əsrin əvvəllərindən başlayaraq İran, Rusiya və Osmanlı sultanlığının təcavüz meydanına çevrildi. Və beləliklə, Azərbaycan xalqı tarix boyu biri digəri ilə çarpışan üç dövlət tərəfindən bölüşdürüldü. Bundan sonra Azərbaycan türkləri öz etnik bütövlüklərini qorumaqla yanaşı üç böyük mədəniyyətin fərqli təsirlərini, dövlət idarəçilik texnologiyalarını qəbul etməli oldular.

Şərqi Anadoluda məskunlaşmış Azərbaycan türkləri üçün etnik- mədəni mühit hər halda daha münasib idi. Ancaq Osmanlı sultanlığının ucqarları olduğundan sosial inkişafın problemləri vardı... Şimali Azərbaycanda Rusiya imperiyasının ruslaşdırma siyasəti nə qədər güclü olsa da, mütərəqqi, xüsusilə maarifpərvər siyasət də yürüdülürdü. Ən ağır vəziyyət isə Cənubi Azərbaycanda idi... İran dövləti ölkə əhalisinin yarıya qədərini təşkil edən Azərbaycan türklərinə, demək olar ki, heç bir perspektiv vəd eləmirdi.

Və Azərbaycan xalqı onun ictimai- siyasi tarixi üçün çox mühüm olan bir dövrə - XIX əsrin sonu XX əsrin əvvəllərinə bu cür acınacaqlı bir vəziyyətdə gəlib çıxdı...

* * *

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan ictimai- siyasi şüuru xalqın ümummilli düşüncəsinin məhsulu olaraq azərbaycançılıq ideologiyasını formalaşdırdı ki, bu, türklüyünü, islam dininə məxsusluğunu və müasirləşmək istəyini dərk edən bir millətin ideologiyası idi. Azərbaycanın görkəmli elm, mədəniyyət və siyasət xadimlərinin, müəyyən fərqlərə baxmayaraq, demək olar ki, hamısının, uğrunda mübarizə apardıqları həmin ideal bütöv bir nəzəri sistemə çevrildi.

Azərbaycançılıq ideologiyasının ilk siyasi- praktik hadisəsi isə Azərbaycan Demokratik Cümhuriyyətinin yaradılması oldu... Bu dövlətin meydana çıxmasında Azərbaycanın görkəmli ictimai- siyasi xadimlərinin, bütövlükdə Azərbaycan xalqının müstəqil dövlət qurmaq ideallarının böyük rolunu qiymətləndirməklə yanaşı etiraf etməliyik ki, o (Azərbaycan Xalq Cümhuriyyəti) daha çox mövcud tarixi şəraitin konyukturunun məhsulu idi. Azərbaycan xalqının təşəkkül tapdığı (və yüz illər boyu məskunu olduğu) coğrafiyanın təxminən beşdə birində qurulmuş bu dövlət elə ilk aylardan qonşu xalqların - erməni və gürcülərin ərazi iddiaları ilə qarşılaşdı. Xüsusilə Şərqi Anadoludan qovularaq Qafqazda dövlət qurmağa can atan ermənilər Azərbaycan ərazilərini tutmaq üçün hər cür vəhşiliyə əl atdılar. Və Osmanlı dövlətinin Qafqaz İslam ordusu adı altında göstərdiyi hərbi

yardım - müdaxilə olmasaydı, yəqin ki, Azərbaycan Xalq Cümhuriyyəti yalnız elan edilməklə kifayətlənmiş olacaqdı...

Azərbaycanın Şimalı ilə Cənubu arasında sovet dövrünə qədər bu və ya digər səviyyədə mövcud olan əlaqələr bütünlüklə kəsilmişdi.

Bununla belə, Moskvanın idarə etdiyi "Azərbaycan dövləti" nə qədər ideoloji təzyiqlərə məruz qalsa da, milli şüurun daşıyıcısı olan ziyalılar məhv edilsə də, xalq məhdud imkanlar daxilində öz varlığını nümayiş etdirə bilmişdi...

Və Heydər Əliyev kimi bir dahini yetişdirmişdi.

* * *

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin azərbaycançılıq ideologiyasının inkişafında, yeni tarixi şəraitə uyğun interpretasiya edilməsində- modern səviyyədə təfsirində və həmin ideologiyanın tarixdə ilk dəfə əbədi (və dönməz) olaraq həyata keçirilməsində mənsub olduğu millətlə birlikdə apardığı mübarizə (göstərdiyi qəhrəmanlıq), ən nihilist "dostlarımızın" (və düşmənlərimizin) belə inkar edə bilməyəcəyi bir hadisədir. Heydər Əliyevin nə səviyyədə bir azərbaycançı olması, milli ideologiyamızın inkişafı, həyata keçirilməsi tarixindəki rolu barədə danışarkən yalnız bircə gerçəkliyi yada salmaq kifayətdir ki, o, məfkurə olaraq meydana çıxandan bəri həmişə istər ədəbi, istər romantik siyasi təsəvvürlərin tərənnüm obyekti olmaqdan o yana keçməmiş azərbaycançılıq ideallarına bir millətin müqəddəratını təyin edəcək qədər rəsmi məzmun-mündərəcə verdi.

Azərbaycan xalqı öz böyük oğullarının şəxsində belə bir cəhdi XX əsrin əvvəllərində də etmişdi, ancaq tarix müsaid deyildi...

Azərbaycançılıq ideologiyasının tarixi, əslində, Azərbaycan xalqının tarixi qədər qədimdir; hər şeydən əvvəl ona görə ki, bu və ya digər xalq (etnos) özünün ümummilli məfkurəsini - həyat fəlsəfəsini bütün mövcudluğu boyu formalaşdırır. Və tarixin elə bir dövrü gəlir ki, xalqın böyük mütəfəkkirlərində təmsil olunan idrakı uzun əsrlər ərzində təbii şəkildə formalaşmış həmin özünəməxsus (ümummilli!) məfkurəni formulə edir.

Əgər I minilliyin ortalarından XIX əsrin sonu XX əsrin əvvəllərinə qədər Azərbaycan xalqının yaşadığı kifayət qədər mükəmməl inkişaf tarixi olmasaydı (və bu tarix xalqın ümummilli məfkurəsini diqtə etməsəydi!), azərbaycançılıq ideologiyasının əsaslarını nə keçən əsrin əvvəllərində formulə etmək, nə də həmin əsrin sonlarında yenidən bərpa eləmək mümkün olardı. Azərbaycan xalqının hansı məfkurəyə əsaslandığını bütün aydınlığı ilə təqdim edən ilk mənbə "Dədə Qorqud" eposudur. O epos ki, xalqımızın təşəkkül tapdığı ilk əsrlərdən meydana çıxmağa başlamış, onun gələcək tarixinin perspektivlərini müəyyənləşdirmişdir. "Dədə Qorqud"da türklər (1) İslamı qəbul edərək (2) müasir dünyanın üzvü tərkib hissəsi olan bir cəmiyyət (3) kimi hərəkət etməkdədirlər. Burada türkçülük, islam və müasirlik emosiya- inersiyası nə qədər güclü olsa da; nə türk şovinizmi, nə islam fundamentalizmi, nə də müasirlik kosmopolitizmi var.

Eposun min üç yüz illik yubileyini keçirən və bu genişmiqyaslı hərəkata bütün Azərbaycan ziyalılığını bir neçə il səfərbər edən Heydər Əliyev yaxşı bilirdi ki,

a) Azərbaycan xalqının,

b) azərbaycançılıq ideallarının

c) və nəhayət, mənsub olduğu xalqın yüz illər boyu həsrətində olduğu bir hadisənin - azərbaycançılıq ideallarının gerçəkləşməsinin yubileyini keçirir.

Azərbaycan xalqının lideri Heydər Əliyev "Dədə Qorqud" eposunda ifadə olunmuş milli idealların nə qədər əsaslı, nə qədər perspektivli və nə qədər səmimi olduğunu bütün ruhu ilə duyurdu.

Ancaq o, tək olmamışdı... Onun özü də müdrik sələfləri kimi tarixin dərinliklərindən gəlirdi...

XIX əsrin sonu XX əsrin əvvəllərində azərbaycançılıq ideologiyasının nəzəri əsaslarını verən böyük mütəfəkkir Əli bəy Hüseynzadə də öz formuləsində (türkçülük, islamçılıq və müasirlik) bir də ona görə haqlı sayıla bilər ki, o, "Dədə Qorqud" eposu qədər səmimi olmuşdu...

"Dədə Qorqud" eposundakı azərbaycançılıq inersiya idi.

Əli bəy Hüseynzadə (və onun daha çox siyasətçi olan davamçıları) bu tarixi inersiyanı ideologiyaya çevirdilər.

Bütün bunların ardınca, tamamilə təbii olaraq, nə gəlməli idi?.. Azərbaycan xalqının tarixən mövcud olduğu coğrafiyanı ehtiva edən Azərbaycan dövləti uğrunda siyasi- ideoloji mübarizə!..

Etiraf etmək lazımdır ki, belə bir mübarizə aparıldı, özü də kifayət qədər güclü siyasi intellekt (və ehtirasla)!.. Bunun ən böyük göstəricisi yalnız Azərbaycan Demokratik Cümhuriyyətinin yaranması olmadı, Azərbaycanın tarixi ərazisində bir neçə müstəqil dövlətin qurulmasına da cəhdlər edildi... Ancaq imperialist

qüvvələrin təzyiqi ilə qərarlaşan beynəlxalq "harmoniya" Azərbaycan xalqının tarixi ideallarının (və milli ideologiyasının) həyata keçməsinə nəinki mane oldu, keçən əsrin 20- ci, 30- cu illərindən başlayaraq hətta bu ideallarm (və milli ideologiyanın) üzərinə dağıdıcı hücumlar başladı...

Ona görə də xalqın tarixini (və ideallarını) dərk etmiş ziyalılar bir tərəfdən nə qədər xoşbəxt idilərsə, o biri tərəfdən ondan da artıq bədbəxt idilər... Azərbaycanın müstəqilliyinin ideoloqlarından olan türkçü gənc Cəfər Cabbarlı tədricən Azərbaycan sovet ədəbiyyatının banilərindən birinə çevrildi, Azərbaycan Demokratik Cümhuriyyətinin himninin musiqisini yazmış Üzeyir Hacıbəyli Azərbaycan SSR-in himninə də musiqi bəstələməli oldu.

Azərbaycan tarixinin dərinliklərindən gələn Səməd Vurğun özünün komsomol mənşəyi ilə fəxr eləməyə məcbur idi...

Azərbaycançılığın birinci tərkib hissəsi olan türkçülük 30-cu illərin ortalarından etibarən qadağan olundu. Və qadağaların miqyası o həddə çatdı ki, Azərbaycan xalqının birbaşa genotipinə - tarixi mənşəyinə müdaxilə edildi; israrla "sübuta" çalışdılar ki, Azərbaycan xalqı türk yox, İran mənşəlidir, sadəcə olaraq, orta əsrlərdə Azərbaycana gələn köçəri türklərin dilini qəbul etmişdir. Qəribəsi də o idi ki, böyük bir xalqın etnik tarixinin saxtalaşdırılması prosesi həm sovet, həm də İran Azərbaycanında eyni forma, məzmun və üsullarla aparılırdı. Xalqı öz etnik- mədəni kökündən (və tarixi mühitindən) məhrum etmək, milli yaddaşın daşıyıcılarını (böyük ziyalıları) məhv eləməklə imperialist rejimlər bütöv bir etnosdan idarə edilməsi asan olan kütlələr formalaşdırmağa qədər gedirdilər.

Bir dövrdə ki, xalqın tarixi taleyindən bəhs edən, onun ictimai- bədii təfəkkürünün yaratdığı ən böyük əsər - "Dədə Qorqud" eposu rəsmən qadağan olunur, deməli, həmin xalqın mənəviyyatına hər cür təcavüz üçün imkan verilir.

Azərbaycançılığın ikinci tərkib hissəsi olan İslam dininə münasibət bundan da acınacaqlı idi. Sovetlər hər bir xalqın mühüm mənəvi göstəricilərindən biri olan dini hakimiyyətə gəldikləri ilk günlərdən qadağan elədilər.

Müasirlik (beynəlmiləlçilik) məsələsinə gəldikdə isə burada da böyük siyasi - ideoloji məhdudiyyət qoyuldu...

Və beləliklə, keçən əsrin 20- ci, 30- cu illərindən başlayaraq Azərbaycan xalqının həyatını idarə edən ideologiyalar onun milli tarixi ideallarına qarşı yönəldiyindən tamamilə antimilli (və antibəşəri!) xarakter daşıyırdı. Xalqın gələcəyi üçün təhlükəli olan bu şəraitdən xilas olmaq üçün cəhdlər edildimi?.. Əlbəttə, nə qədər böyük məhrumiyyətlərlə üzləşsə də Azərbaycan xalqı öz milli mənliyini heç zaman unutmamış, ən çətin şəraitlərdə belə gələcəyə yönəlik ideallarının itirilməsinə imkan verməmişdir. İctimai- siyasi (ideoloji!) özünütəsdiq uğrunda mübarizənin hüdudlandığı, yaxud qadağan olunduğu dövrlərdə xalq özünün varlığını dili, ədəbiyyatı və incəsənəti ilə təsdiq etməyə çalışmış, milli ideologiyanın əsaslarını həmişə sağlam saxlamışdır.

Təsadüfi deyildi ki, Azərbaycan sovet poeziyasının müqayisəsiz lideri Səməd Vurğunun "Azərbaycan" şeiri müstəqillik illərində ümummilli liderin dilindən məhz müstəqilliyimizin himni kimi səsləndi.

Mənsub olduğu xalqın tarixini (və milli tarixi ideallarını!) dərindən bilməklə yanaşı, uzun müddət sovet təhlükəsizlik orqanlarında xidmət etdiyindən, onun (xalqın) hansı məhrumiyyəitlərə məruz qaldığı barədə geniş təsəvvürə malik olan və ən əsası, həmin məhrumiyyətlərdən çıxmağın yollarını axtarıb tapmağa qadir siyasi mütəfəkkir kimi Heydər Əliyevin milli (və ümummilli!) lider mövqeyinə yüksəlməsi ilə azərbaycançılıq ideologiyasının tarixində yeni dövr başladı.

O zamana qədər azərbaycançılıq milli ideal (və ideologiya) olaraq

a) ilk orta əsrlərdən XIX əsrin sonlarına,

b) XIX əsrin sonlarından XX əsrin sonlarına qədər iki dövrdən keçmiş, millətin liderini formalaşdıracaq mənəvi- ideoloji qüvvəyə çevrilmişdi.

Azərbaycançılıq - Heydər Əliyevin genişmiqyaslı fəaliyyətinin, sadəcə, tərkib hissələrindən biri deyil, həmin fəaliyyətin (əslində, mübarizənin!) əsası, başqa sözlə, mahiyyətidir. Və bu həm sovet dövründə, həm də müstəqillik illərində belə olmuşdur.

Sovet dövrünün milli ideallarm həyata keçirilməsi üçün olduqca məhdud şəraitində Azərbaycan rəhbəri

- respublikanın iqtisadi- təsərrüfat həyatının canlandırılması,
- elmin, təhsilin inkişafı,
- ana dilinin, ədəbiyyatın, incəsənətin mövqeyinin yüksəldilməsi,
- milli hərbi kadrların yetişdirilməsi,
- Azərbaycanın beynəlxalq miqyasda tanıdılması və s. kimi əhəmiyyətli tədbirlər görmüşdür. Və böyük mütəfəkkir bütün bunları elə etmişdir ki, görülən tədbirlər sovet rejiminin əks reaksiyası, dağıdıcı müqaviməti ilə qarşılaşmasın. Azərbaycanın yeni rəhbəri yaxşı bilirdi ki, onun ürəyində millət sevgisi olan yaxın sələfləri çox zaman məhz siyasi- ideoloji manevr imkanlarının olmaması ucbatından həm özlərini, həm də xalqı

problemlər qarşısında qoymuşlar... Bütün ideologiyalar kimi azərbaycançılığını da heç zaman dəyişməyən metafizikası vardır, bununla belə o da inkişaf edən, müasirləşən, dövrün müxtəlif miqyaslı konyuktur təzyiqləri ilə hesablaşan bir ideologiyadır. Azərbaycan xalqının ümummilli lideri öz tarixi fəaliyyətində azərbaycançılıq ideologiyasının dəyişməyən metafizikasından çıxış etməklə, ona əsaslanmaqla yanaşı, həyata keçirilmə iyerarxiyasına, metodlarına da xüsusi önəm vermişdir.

Bütün bunları nəzərə alaraq deyə bilərik ki, Heydər Əliyev XX əsrin sonu XXI əsrin əvvəllərində

1) azərbaycançılıq ideologiyasının öz təbii gücündə təzahürü üçün mədəni- mənəvi, ictimai- siyasi və ideoloji mühit yaratdı;

2) milli (ümummilli) lider olaraq həmin ideologiyanın nəzəri- metodoloji baxımdan inkişafına, zənginləşməsinə əhəmiyyətli töhfələr verdi;

3) və başlıcası, azərbaycançılığı müstəqil Azərbaycan dövlətinin ideologiyasına çevirdi.

Və beləliklə, yüz illər boyu mənəvi- mədəni (etnoqrafik), on illər boyu siyasi mübarizə həyatı yaşamış bir ideologiya qalib gələrək öz tarixinin yeni epoxasına daxil oldu. Ümummilli liderin bir tarixi xidməti həmin missiyanı reallaşdırmaq idisə, ikinci missiyası da azərbaycançılıq ideologiyası qarşısında yeni perspektivlər, üfüqlər açması oldu. Bugün Azərbaycan xalqı məhz Heydər Əliyevin ardıcıl mübarizəsi ilə formulə edilən, elmi- nəzəri (və praktik!) baxımdan komplektləşdirilən mükəmməl bir ideologiyaya malikdir; azərbaycançılıq öz metafizik gücünü bütünlüklə qoruyub saxlamaqla yanaşı, inkişaf edib müasirləşir:

1. Azərbaycan Respublikası Azərbaycan xalqının əsrlər boyu daşıdığı mənəvi, siyasi - ideoloji ideallarının məhsuludur. Azərbaycan Respublikası ərazisində yaşayan digər xalqlarla birgə azərbaycanlılar öz müstəqil dövlətlərinin təəssübkeşi olaraq siyasi müqəddəratlarını təmin etmişlər.

Həm öz tarixi vətənlərində yaşayan, həm də dünyanın müxtəlif yerlərinə səpələnmiş azərbaycanlılar Azərbaycan Respublikasını özlərinin ata yurdu saymalı, məskun olduqları dövlətin qayda- qanunlarına riayət etməklə yanaşı, öz milli kimliklərini unutmamalıdırlar. Və nəinki unutmamalı,mənsub olduqları xalqın tarixi idealları uğrunda mübarizə aparmaqdan çəkinməməlidirlər.

2. Azərbaycan xalqı türk xalqlarından biridir, Türk dünyasının üzvü tərkib hissəsidir...

Bununla belə Azərbaycan xalqının tarixən müəyyənləşmiş özünəməxsusluqları vardır ki, həmin özünəməxsusluqlar heç bir halda türklüyü istisna etmir, əksinə, zənginləşdirir.

Müasir türk xalqlarının (və dövlətlərinin) inteqrasiyası onların kökcə birliyindən və orta əsrlərdən etibarən meydana çıxmış, sabitləşmiş özünəməxsusluqlara qarşılıqlı hörmətdən keçir.

3. Türk xalqlarının əksəriyyəti kimi azərbaycanlılar da islam dinini qəbul etmiş, müsəlman dünyasının tərkibinə daxil olmuşlar.

Azərbaycan xalqı öz dini- mənəvi dəyərlərilə fəxr etməklə bərabər dünyanın bütün humanist dini dəyərlərinə hörmətlə yanaşır.

4.Azərbaycan xalqı bütün tarixi boyu müasir dünya mədəniyyətinə, modern texnologiyara, beynəlmiləl münasibətlərə maraq göstərmişdir, özünü dünyadan heç zaman təcrid etməmişdir.

Bu gün də biz öz uğurlarımızı (və problemlərimizi), bir qayda olaraq, dünya miqyasında dəyərləndiririk. Azərbaycanın son illər xüsusilə iqtisadi sahədə qazandığı tarixi nailiyyətlər beynəlxalq səviyyədə etiraf olunur (və böyük rezonans verir).

Heydər Əliyevdən sonra azərbaycançılıq ideologiyasının Heydər Əliyev dövrü davam edir. Azərbaycan prezidenti, Azərbaycan xalqının yeni lideri İlham Əliyev azərbaycançılıq metafizikasının inkişafı üçün üç məqama, fikrimizcə, daha çox önəm verməkdədir:

1. Azərbaycanı iqtisadi, ictimai və mədəni inkişafına görə dünyanın nüfuzlu ölkələri səviyyəsinə qaldırmaqla Azərbaycan insanına zaman-zaman təlqin edilmiş ikinci, üçüncü... dərəcəlilik kompleksini aradan qaldırmaq.

2. Vətənpərvərlik hisslərini gücləndirməklə xalqın tarixi ideallarının tam miyqasda həyata keçirilməsi üçün mənəvi potensiya hazırlamaq.

3. Və nəhayət, azərbaycançılığı müdafiə olunan hadisədən hücum edən hadisəyə çevirmək.

Biz hər əsrdə, hər onillikdə bir ideologiyanı mənimsəyən xalqlardan deyilik, ona görə də hər onilliyin, hər əsrin konyukturunu qəbul edib milli ideologiyamızın metafizikasından imtina etməmişik... Bizim türkçülüyümüz türklüyümüzdən, müsəlmançılığımız müsəlmanlığımızdan, müasirliyimiz (beynəlmiləlçiliyimiz) isə modernliyimizdən (və humanizmimizdən) irəli gəlir. Əsas üstünlüyümüz isə ondadır ki, biz bu üç tarixi əlamətimizi bir milli xarakterə (missiyaya) çevirə, xalqımızın bütöv bir həyat idealı olaraq dərk edə və "bizim siyasətimiz bizim işimizdir" (İlham Əliyev) deyə bilmişik...

Azərbaycançılıq heç bir xalqın humanist (milli) ideallarına qarşı çıxmamışdır, bu gün də çıxmır... Və gələcəkdə də çıxmayacaqdır. Ancaq tarix Azərbaycan xalqına edilmiş çoxsaylı təcavüzlərin şahididir. Bircə faktı xatırlatmaq kifayətdir ki, Azərbaycan xalqı öz müstəqil dövlətini tarixi ərazisinin hələlik yalnız beşdə

birində qurmağa nail olmuşdur... Ona görə də azərbaycançılıq ideologiyası mənsub olduğu millətin təbii hüquqları uğrunda hələ çox döyüşməli, tarixin səhvlərini düzəltməli olacaqdır.

**“Xalq qəzeti”.-**2011.-4 may.-N 95.-S.3.

# AZƏRBAYCANIN MÜASİRLƏŞMƏSİ HEYDƏR ƏLİYEVİN ADI İLƏ BAĞLIDIR

**Aslan ASLANOV,**
Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın)
baş direktoru

**Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, ictimai-siyasi və sosial həyatda tərəqqinin - müasirləşmənin otuz ildən artıq bir dövrünün ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olması tarixi həqiqətdir. Heydər Əliyev 1969-cu ilin ikinci yarısında Azərbaycana rəhbərlik etməyə başlayanda respublika həyatın bütün sahələrində tənəzzül dövrünü yaşayırdı. Xüsusilə iqtisadiyyatı bürümüş dərin böhran hər bir sahədə özünün mənfi nəticələrini göstərirdi. Sosial-iqtisadi baxımdan digər müttəfiq respublikalardan geridə qalan Azərbaycan SSRİ rəhbərliyinin nəzərində ölkənin perspektivsiz əyalətlərindən biri sayılırdı. Moskva hesab edirdi ki, respublikanın məşhur neft yataqları artıq öz əhəmiyyətini itirib və Azərbaycanın əsasən bu sahə ilə bağlı olan iqtisadiyyatının perspektivi yoxdur.**

Sovet dövlətinin yarandığı ilk vaxtdan başlayaraq bütün ötən illərdə İttifaqı neft və neft məhsulları ilə təmin edən, xüsusilə, İkinci Dünya müharibəsində faşizm üzərində qələbədə, sözün həqiqi mənasında, həlledici töhfəsi olan (1941-1945-ci illərdə respublikamız ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin və digər neft məhsulları vermişdi) Azərbaycana qarşı bu cür laqeyd münasibət, yumşaq desək, ən azı çox böyük ədalətsizlik idi.

Respublikanı belə ağır vəziyyətdən çıxarmaq tamamilə yeni konseptual səviyyədə yanaşma tələb edirdi. Çünki yüngül və yeyinti sənayesi müəssisələrini çıxmaq şərti ilə, əslində, Azərbaycanın o vaxtkı iqtisadiyyatı bilavasitə neft sənayesi ilə bağlı idi. Belə vəziyyət respublikada ənənəvi təsərrüfat sahələrinin şöhrətini və səmərəliliyini bərpa etməklə yanaşı, çoxşaxəli istehsal müəssisələrinin yaradılmasını, bütövlükdə iqtisadiyyatın sənaye bazasının genişləndirilməsini və müasirləşdirilməsini nəzərdə tutan dolğun iqtisadi konsepsiyanın işlənib hazırlanmasını tələb edirdi.

Məhz Heydər Əliyevin gərgin səyləri sayəsində belə bir iqtisadi konsepsiya - Azərbaycanın dinamik və hərtərəfli inkişafını təmin edəcək kompleks proqramlar işlənib hazırlandı. Azərbaycanın yeni rəhbəri SSRİ hökumətinin respublika iqtisadiyyatının hərtərəfli tərəqqisini və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərarının qəbul edilməsinə nail oldu. Azərbaycanın sosial-iqtisadi inkişafının əsas istiqamətlərini müəyyənləşdirən bu qərarların respublikanın gələcəyi baxımından çox böyük tarixi əhəmiyyəti var idi. Həmin qərarların icrası sənayenin yeni sahələrinin yaranması, çoxsaylı iş yerlərinin açılması, kənd təsərrüfatı istehsalının artırılması, elm və mədəniyyətin inkişafına təkan verilməsi, ən başlıcası isə əhalinin sosial vəziyyətinin yüksəldilməsi demək idi.

1969-cu ilin ikinci yarısı və 1970-ci il Azərbaycanın sosial-iqtisadi, ictimai-siyasi həyatında dönüş mərhələsinin başlanğıcı oldu. Sonrakı illərdə isə respublikada bütün sahələrdə dinamik inkişaf müşahidə edilirdi. Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlamasından sonrakı ilk beşillikdə - 1971-1975-ci illərdə 64 yeni iri müəssisə tikilmişdi. Sənaye məhsulu artımının 76 faizi əmək məhsuldarlığının yüksəldilməsi hesabına əldə olunmuşdu ki, bu da ilk növbədə, texniki tərəqqinin sürətlənməsi, əməyin elmi təşkili ilə bağlı idi. Sənayenin strukturundakı keyfiyyət dəyişiklikləri Bakı məişət kondisionerləri zavodu, Sumqayıt kompressor zavodu kimi iri müəssisələrin, habelə respublika üçün tamamilə yeni olan elektron sənayesinin yaranması, neft emalı zavodlarının yenidən qurulmasına və modernləşdirilməsinə başlanması ilə səciyyələnirdi. Sonrakı beşillikdə SSRİ-də məhsul istehsalının həcmi 29 faiz, milli gəlir 25 faiz artmışdısa, Azərbaycanda bu göstəricilər müvafiq surətdə 46 faiz və təqribən 70 faiz təşkil edirdi. Şirvanda məişət cihazları zavodu, Bakıda ayaqqabı fabriki, Gəncədə əlvan metallar zavodu və digər iri müəssisələr istifadəyə verilmiş, Şəmkir SES-in və Azərbaycan DRES-in tikintisinə başlanmışdı. Bakının neftayırma zavodlarında müasir texnoloji qurğuların işə salınması neftayırma sənayesinin inkişafında yeni mərhələnin başlanması demək idi.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə respublikanı müasirləşdirmək siyasətində paytaxtdan kənarda yeni sənaye müəssisələrinin yaradılması xüsusi yer tuturdu. Həmin illərdə təkcə Bakı və Sumqayıtda deyil, digər şəhər və qəsəbələrdə yeni fabriklər, zavodlar istifadəyə verilmişdi. Sənayenin strukturu və yerləşdirilməsindəki bu mütərəqqi irəliləyiş bölgələrin inkişafına təkan verir, iş yerləri açılır, eyni zamanda, həmin yerlərə yeni istehsal mədəniyyəti gətirir, əvvəllər mövcud olmayan peşələrə yiyələnən kadrların hazırlanmasına şərait yaradırdı. Məhz bu siyasətin sayəsində Azərbaycanda sənaye məhsulu istehsalının üçdəbirindən çoxu paytaxtdan kənarda yerləşən müəssisələrin payına düşürdü.

Respublika iqtisadiyyatının əsas sahələrindən olan kənd təsərrüfatının inkişafındakı uğurlar xüsusilə diqqətəlayiq idi. Əsas kənd təsərrüfatı məhsullarının istehsalı tam mexanikləşdirilmişdi. 1980-ci ildə respublikanın tarixində rekord miqdarda məhsul yetişdirilmiş, 1136,2 min ton (1970-ci ildə 723,4 min ton) dənli bitkilər, 883,5 min ton pambıq (1970-ci ildə 335,6 min ton), 824,4 min ton tərəvəz (1970-ci ildə 409,9 min ton), 1508 min ton üzüm (1970-ci ildə 351,7 min ton) yığılmışdı. Kənd əməkçilərinin gəlirləri ildən-ilə artır, yaşayış səviyyəsi yüksəlir, rayon mərkəzlərinin və kəndlərin siması getdikcə dəyişirdi.

Xalqın iqtisadi azadlığının onun siyasi müstəqilliyini şərtləndirməsi konsepsiyasının incəliklərinə dərindən bələd olan Heydər Əliyev yaxşı bilirdi ki, milli dirçəliş ideyalarını, azərbaycançılıq ideologiyasını yalnız iqtisadiyyatın inkişafındakı uğurlar fonunda həyata keçirmək mümkündür. Totalitar sistemin elm və mədəniyyət xadimlərinə, ziyalılara qarşı ağır təzyiqləri, təqib və təhdidləri Sovet İttifaqının digər respublikalarında aşkar şəkildə hiss olunduğu bir vaxtda, Heydər Əliyev Azərbaycanda yaradıcı adamlar üçün elə bir şərait yaratmışdı ki, bu, sərbəst düşünməyə və cəmiyyətdə, mədəniyyətdə, ədəbiyyatda gedən prosesləri necə başa düşdüyünü açıq ifadə etməyə, əslində isə, milli-mənəvi ideallarn bərqərar edilməsinə doğru aparan yolları axtarmağa imkan verirdi.

Həmin illərdə xalqımızın görkəmli şəxsiyyətlərinin yubileylərinin ittifaq və respublika miqyasında qeyd edilməsi, milli ruhumuzun ifadəçiləri olan görkəmli xadimlərə abidələr ucaldılması, Azərbaycan dilinə göstərilən qayğı, Bakıda ittifaq və beynəlxalq əhəmiyyətli tədbirlərin təşkili, müttəfiq respublikalarda və bir sıra xarici dövlətlərdə Azərbaycan mədəniyyəti və incəsənəti günlərinin keçirilməsi, o vaxt Kirovabad adlanan qədim şəhərimizin təzə salınmış yaşayış massivlərindən birinin "Yeni Gəncə" adlandırılması (bu, əslində şəhərin əsl adının necə olmasına işarə idi), mədəni sərvətlərimizin təbliği, qorunub saxlanması, ittifaqda və xaricdə tanıdılması sahəsində görülən əvəzsiz işlər idi.

Bu baxımdan Azərbaycan sovet dramaturgiyasının banisi, əsərlərində ustalıqla incə məsələlərə toxunan Cəfər Cabbarlının və Vətənimizin və xalqımızın düşmənlərinin məkrli əməlləri nəticəsində "millətçi" damğası vurulmuş Nəriman Nərimanovun yubileylərinin keçirilməsinin və Bakıda onlara əzəmətli abidələrin ucaldılmasının, Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan ilk ali təhsil ocağımızın Bakı Dövlət Universitetinin 50 illiyinin məhz 1969-cu ildə qeyd olunmasının, respublikanın 1978-ci ildə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusunun təsbit edilməsinin, Hüseyn Cavidin nəşi uzaq Sibirdən gətirilərək, şairin doğma yurdu Naxçıvanda dəfn edilməsinin çox böyük rəmzi mənaları vardı.

Özünün bütün fəaliyyətində xalqımızın taleyini düşünən Heydər Əliyev yaxşı bilirdi ki, Azərbaycanın gələcəyi müasir biliklərə yiyələnmiş, geniş dünyagörüşünə malik, milli-mənəvi dəyərlərin daşıyıcısı olan kadrlardan asılıdır və onlar gənclər arasından yetişməlidir. Buna görə də o, gənclərə çox böyük qayğı göstərirdi. Respublikanın kadr korpusunun istedadlı gənclər hesabına təzələnməsi üçün əvvəllər görünməmiş səviyyədə tədbirlər həyata keçirilirdi. Müasirləşməkdə olan Azərbaycanın elmi-texniki və mədəni potensialının yüksəldilməsindən, ən zəruri ixtisaslara tələbatın ödənilməsindən ötrü gənclər SSRİ-nin mötəbər ali məktəblərinə göndərilirdi.

Həmin illərdə Sovet İttifaqının 170 ali məktəbinə Azərbaycandan 3500 gənc göndərilmişdi. Eyni zamanda, iqtisadiyyatın sürətli və çoxşaxəli inkişafına uyğun olaraq respublikanın ali və orta ixtisas təhsili şəbəkəsi də genişləndirilirdi. 1980-ci ildə Azərbaycanda ali məktəblərin sayı 12-dən 17-yə, tələbələrin sayı isə 70 mindən 100 minə çatmışdı. Bu sahədə Heydər Əliyevin xüsusi diqqət yetirdiyi məsələlərdən biri milli hərbçi kadrların hazırlanması idi. Onun respublikaya rəhbərliyinin ilk illərində yaradılan ixtisaslaşdırılmış internat məktəb (indiki Cəmşid Naxçıvanski adına hərbi lisey) bu işin başlanğıcını qoydu. Hər il həmin məktəbin yüzlərlə məzunu SSRİ-nin ali hərbi təhsil müəssisələrinə daxil olurdu. Azərbaycan rəhbəri gənclərimizin Bakıdakı Ümumqoşun Komandirləri Məktəbində, Sovet İttifaqının ali təyyarəçilik məktəblərində təhsil almağa göndərilməsini xüsusi nəzarətə götürmüşdü. Məhz həmin dövrdə ali hərbi təhsil almış gənclər müstəqilliyin ilk illərində milli ordumuzun zabit korpusunun əsasını təşkil etmişdir.

Heydər Əliyev hər il ittifaqın ali məktəblərinə göndərilən gənclərlə görüşərək dəyərli məsləhətlərini verir və xüsusi vurğulayırdı ki, onlar yüksək səviyyəli təhsil almaqla yanaşı, həm də xalqımızı, Azərbaycan gəncliyini təmsil etməli, milli-mənəvi dəyərlərimizi, mədəniyyətimizi təbliğ etməli, respublikamızın şərəfini uca tutmalıdırlar.

O illərdə Heydər Əliyevin elm, mədəniyyət, təhsil, ədəbiyyat, incəsənət sahəsində gördüyü əzəmətli işlər həqiqətən milli özünüdərkin oyanmasının, öz kökümüzə qayıdışın yeni mərhələsinə doğru aparan proseslərin başlanğıcı oldu. Qətiyyətlə deyə bilərik ki, 1969-1982-ci illərdə Azərbaycan sürətli sosial-iqtisadi inkişafla yanaşı, həm də müəyyən mənada milli hisslərin əsl intibah dövrünü yaşamışdır.

Azərbaycanın modernləşməsinin, müasirləşməsinin XX əsrin 70-ci illərini - 80-ci illərinin əvvəllərini əhatə edən birinci mərhələsindəki tərəqqi, yüksəliş heç də asan başa gəlməmişdi və ilk növbədə Heydər Əliyevin istedadı və cəsarətinin nəticəsi idi.

Azərbaycanın modernləşməsinin birinci mərhələsinin bütövlükdə nəticələrini ümumiləşdirərək deyə bilərik ki, müasir Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, xarici əlaqələrinin müntəzəm surətdə genişlənməsi və dünya iqtisadiyyatına daha dərin inteqrasiyası prosesi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır. Ulu öndər Heydər Əliyev özü də sonralar vurğulayırdı ki, Azərbaycanın sovet dönəmində inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır. Şübhəsiz ki, bunda məhz haqqında söhbət gedən illərdə görülmüş işlər həlledici rol oynamışdır.

Tədqiqatçılar belə bir cəhəti də vurğulayırlar ki, həmin dövrdə Azərbaycanda müşahidə edilən sürətli inkişaf prosesi bütövlükdə Sovet İttifaqında iqtisadiyyatda inkişafın ləngidiyi, bəzi sahələrdə isə tənəzzülün olduğu bir vaxtda gedirdi. Ölkədə yaranmış durğunluğu sovet rəhbərliyinin özü də etiraf edirdi və Mixail Qorbaçovun "yenidənqurma" siyasəti də bu durğunluqdan xilas olmağa yönəldilmişdi. Lakin bunun nə ilə nəticələndiyi məlumdur.

Mərkəzləşdirilmiş sovet iqtisadi sistemində nəinki durğunluqdan özünü qorumaq, həm də respublikada bu cür inkişaf potensialı axtarıb tapmaq və onu hərəkətə gətirmək heyrətamiz dərəcədə ağlasığmaz bir iş olsa da, həqiqət idi. Ancaq bu uyğunsuzluğun, təzadlı mənzərənin səbəbləri üstündən iyirmi il keçdikdən sonra üzə çıxdı. Bu səbəbləri isə yalnız və yalnız şəxsiyyətin - Heydər Əliyevin müstəsna rolundan savayı, heç bir başqa amillə izah etmək mümkün deyil. Lakin Mərkəz özünün ümumi siyasətindən, mövcud meyillərdən, qanunauyğunluqlardan kənara çıxmağı, Azərbaycanın istisna təşkil etməsini görməyə və ən nəhayət, bağışlaya bilməzdi. M.Qorbaçovun Azərbaycana qarşı xəyanətkar mövqeyinin, bu yolda ilk addım kimi artıq o vaxt Moskvada işləyən və özünün nadir şəxsi keyfiyyətlərinə görə ölkənin ali rəhbərliyində açıq-aşkar seçilən Heydər Əliyevi Kremldən uzaqlaşdırmaq niyyətinin köklərini də bununla izah etmək olur.

Heydər Əliyev özü sonralar bu barədə belə demişdir: O illərdə - 80-ci illərin ortalarında biz ayrı-seçkiliyə məruz qalırdıq. Mən həm Azərbaycanı, həm də Orta və Mərkəzi Asiyanın bəzi digər respublikalarını nəzərdə tuturam... Özbəkistan və Azərbaycan xalqlarının milli azadlığı və dövlət müstəqilliyi üçün şərait yetişməyə başlayan vaxtlarda son dərəcə çox əngəllər törədilirdi. 1988-ci ildə Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüzün başlanması da nəinki Ermənistandakı ayrı-ayrı millətçilərin və özgə ərazisini ələ keçirməyə can atan şəxslərin əməlləri idi, həm də böyük bir siyasətin - artıq baş vermiş müsbət proseslərə maneçilik törətməyə yönəldilmiş siyasətin bir hissəsi idi.

Yalnız ümummilli lider Heydər Əliyev yenidən siyasi rəhbərliyə qayıtdıqdan sonra Azərbaycanın müasirləşdirilməsinin yeni mərhələsinə başlamağın əsası qoyuldu. Heydər Əliyevin gərgin səyləri nəticəsində Azərbaycanda ictimai-siyasi sabitlik təmin edildi, 1990-cı illərin ortalarında isə həqiqi mənada müstəqil dövlət yaradılması və dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadiyyatda durğunluq və tənəzzül prosesinin dayandırılması məqsədi daşıyan sosial-siyasi və iqtisadi dəyişikliklərə başlandı.

1994-cü ilin sentyabrında aparıcı beynəlxalq neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın modernləşdirilməsinin müasir mərhələsinin başlanğıcı oldu. Heydər Əliyevin respublika Prezidenti kimi fəaliyyətinin ilk günlərindən xarici siyasət Azərbaycanın iqtisadi tənəzzüldən çıxmasının təmin olunmasına yönəldilmişdi. Bu baxımdan Azərbaycana xarici sərmayələrin cəlb olunması üçün göstərilən ilk cəhd kimi, son dərəcə böyük geosiyasi və iqtisadi əhəmiyyəti olan "Əsrin müqaviləsi" xüsusi yer tuturdu.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci ilin noyabrında ümumxalq səsverməsi ilə qəbul olunmuş ilk Konstitusiyası ölkədə yeni iqtisadi sistemə keçidin hüquqi əsası oldu və o vaxtdan respublikanın iqtisadi həyatının yeni mərhələsi başlandı.

Heydər Əliyev bazar iqtisadiyyatına keçidi təmin edəcək islahatların dərinləşdirilməsində özəlləşdirməyə həlledici yer verirdi. Kiçik özəlləşdirmə adlanan proses - xidmət sahələrinin, ticarətin, tikinti və nəqliyyatda bir sıra sahələrin özəlləşdirilməsi bazar münasibətlərinə keçidi təmin etdi. Bu sahədəki təcrübə orta və iri müəssisələrin özəlləşdirilməsi prosesini uğurla davam etdirməyə imkan verdi.

Lakin ölkə əhalisinin 40 faizdən çoxunun yaşadığı kənd yerlərini bazar münasibətlərinə cəlb etmədən yeni iqtisadiyyatın yaradılması təmin oluna bilməzdi. Bu isə, ilk növbədə, torpağın şəxsi mülkiyyətə verilməsi, kolxoz və sovxozların əmlakının özəlləşdirilməsi - yəni aqrar islahatın aparılması nəticəsində mümkün idi. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə respublikamızda çox cəsarətli, keçmiş SSRİ məkanında bənzəri olmayan torpaq islahatının həyata keçirilməsi, əslində, Azərbaycan kəndində bütün təsərrüfat ukladını, kəndin həyat tərzini kökündən dəyişdi.

Heydər Əliyevin iqtisadi strategiyasında ölkəyə xarici sərmayələrin cəlb edilməsi xüsusi yer tuturdu. İlk vaxtlar əsasən Azərbaycanın yeni neft strategiyasının reallaşdırılması ilə bağlı qoyulan xarici sərmayələr getdikcə iqtisadiyyatın digər sahələrinə, infrastruktur layihələrinə də yönəldilirdi. Ölkədə əlverişli sərmayə mühitinin yaradılması, o cümlədən xarici sərmayələrin qorunması üçün dövlət tərəfindən bütün zəruri tədbirlər görülür, müvafiq qanunvericilik bazası yaradılırdı. 1995-2003-cü illərdə ölkə iqtisadiyyatına qoyulmuş 16 milyard dollardan artıq sərmayənin 12,3 milyard dolları və ya 77 faizi xarici sərmayənin payına düşürdü. Təkcə 2000-2003-cü illərdə Azərbaycan iqtisadiyyatına 7,5 milyard dollardan çox xarici sərmayə qoyulmuşdu ki, bu da adambaşına götürdükdə bütün MDB məkanında ən yüksək göstərici idi.

Mülkiyyət, maliyyə-bank, valyuta, vergi, məhkəmə-hüquq sahələrində qəbul olunmuş qanunlar iqtisadi münasibətlərin və mexanizmlərin əhəmiyyətli dərəcədə liberallaşmasına, təsərrüfat həyatının dövlət tərəfindən tənzimlənməsinin azalmasına gətirib çıxardı. Ölkədə həyata keçirilən islahatlar artıq 1998-ci ildə hissedilən müsbət nəticələr verməyə başladı. 1991-1995-ci illərdə ümumi daxili məhsulun həcmi 58 faiz, sənaye istehsalı 67 faiz, kənd təsərrüfatı istehsalı 48 faiz azalmışdısa, inflyasiyanın illik səviyyəsi 1400-1800 faiz təşkil edirdisə, 1996-2006-cı illərdə ÜDM 89 faiz, sənaye məhsulu təqribən 32 faiz, kənd təsərrüfatı məhsulları 50 faiz artmış, inflyasiyanın səviyyəsi 23 faizə düşmüşdü.

Heydər Əliyevin yeni neft strategiyasının reallaşdırılması sahəsindəki uğurları Azərbaycanın intensiv inkişafına yol açdı. Ölkəmiz iri transmilli layihələrin həyata keçirilməsi üçün mühüm geoiqtisadi və geosiyasi məkana çevrilməyə başladı.

Ümummilli lider Heydər Əliyev müasir dövlət yaratmaqla bərabər, onun gələcək illərə hesablanmış inkişaf strategiyasını da müəyyən etmiş, öz zəmanəsini qabaqlayaraq, Azərbaycanın qarşısında duran strateji vəzifələri dəqiq göstərmişdi. O, Azərbaycanı mühüm strateji meydan və dünya dövlətləri birliyinin sərfəli iqtisadi tərəfdaşı kimi görürdü.

Bu məqsədlərə nail olmağın yolu isə XXI əsrdə ölkəmizin siyasi, iqtisadi və sosiomədəni gerçəkliyini modernləşdirməkdən keçir. Son illərdə daxili və xarici siyasətdə qazanılmış çox böyük uğurlar indi inkişafın Azərbaycan modeli haqqında danışmağa əsas verir. Ölkənin mövcud reallıqları və perspektivləri sübut edir ki, modernləşmənin Azərbaycanın timsalında çox böyük inkişaf ehtiyatları vardır və onların hərəkətə gətirilməsi ölkənin sürətli tərəqqisinə birbaşa təsir göstərir. Ötən illərdə Azərbaycan iqtisadiyyatının üç dəfə, dövlət büdcəsi gəlirlərinin on dəfədən çox artması düşünülmüş şəkildə, konkret proqramlar əsasında həyata keçirilən iqtisadi və infrastruktur layihələri nəticəsində yaranmış yeni iqtisadi münasibətlərin səmərəli fəaliyyətinin inkaredilməz reallığıdır.

İnkişafın Azərbaycan modelindən bəhs edərkən regionların sosial-iqtisadi inkişafı sahəsində görülmüş nəhəng işləri xüsusi vurğulamaq lazımdır. Bu sahədə həyata keçirilən dövlət proqramları inkişaf səviyyəsi baxımından təkcə paytaxtla bölgələr arasında deyil, həm də ayrı-ayrı bölgələr arasında fərqləri tədricən aradan qaldırdı, yüz minlərlə yeni iş yeri açıldı. Qeyri-neft sektorunun sürətli inkişafına güclü təkan verən bu tədbirlər Azərbaycan iqtisadiyyatının neft amilindən asılılığının azaldılması, ölkənin tarazlı şəkildə müasirləşdirilməsi baxımından da çox böyük əhəmiyyət kəsb edir. 2004-cü ildən bəri ölkədə 900 mindən çox, o cümlədən 700 minə qədər daimi iş yeri açılmışdır ki, bunun da əksəriyyəti bölgələrin payına düşür. İqtisadiyyatda özəl bölmənin payı 80 faizdən çoxdur.

Prezident İlham Əliyev Azərbaycanın müasirləşdirilməsinin başlıca məqsəd olduğunu dəfələrlə bildirmişdir. Dövlət başçısı 2011-ci ilin fevralında respublikamızın qərb bölgəsinə səfəri zamanı bunu bir daha vurğulayaraq demişdir ki, biz ölkəmizi hər cəhətdən müasirləşdirməliyik. Azərbaycan sözün əsl mənasında inkişaf etmiş ölkəyə çevrilməlidir, bu, bizim məqsədimizdir. Dünyada inkişaf etmiş ölkələrin sayı çox deyil və Azərbaycanın bütün meyarlar üzrə bu sıraya daxil olmağa imkanları vardır.

**Qlobal transformasiyaların baş verdiyi müasir dövrdə Azərbaycanın daxili və xarici siyasətinin gündəliyində əsasını ulu öndər Heydər Əliyevin qoyduğu və hazırda Prezident İlham Əliyev tərəfindən həyata keçirilən xətt - modernləşdirilmiş iqtisadiyyatı, vətəndaş cəmiyyəti və liberal ənənələri olan suveren dövlət qurmaq xətti öz ifadəsini tapır. Bu isə postindustrial cəmiyyətə, informasiya cəmiyyətinə aparan yoldur.**

**"Azərbaycan".-**2011.-5 aprel.-N 96.-S.4.

# HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN QURUCUSU VƏ MEMARIDIR

**İSA ALIYEV,**
AMEA İqtisadiyyat İnstitutunun direktoru,
iqtisad elmləri doktoru, professor,

**AQİL ƏSƏDOV,**
İqtisadiyyat İnstitutunun şöbə müdiri,
iqtisad elmləri namizədi

**1923-cü ilin 10 may günü Azərbaycan xalqının və dövlətinin taleyində, tarixində hər zaman fəxrlə yad edilən bir gündür. Ona görə ki, xalqımızın ümummilli lideri, böyük dövlət xadimi, dahi siyasətçi, müstəqil Azərbaycan dövlətini qurucusu və memarı Heydər Əliyev həmin tarixdə dünyaya gəlmişdir. Ulu öndər hələ sağlığında öz xatirələrində qeyd edirdi ki: "Mən bir yaz günü balaca bir evdə, zəhmətkeş ailəsində dünyaya göz açmışam. Anadan olanda yəqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinib. İndi bəlkə də bir qədər qeyri-təvazökar səslənsə də deməliyəm ki, anam məni bütövlükdə Azərbaycanımız üçün dünyaya gətirib. Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm. Bundan sonrakı ömrümü də onun işıqlı sabahları uğrunda qurban verməyə hazıram." Bu gün müstəqil Azərbaycan dövlətinin memarı, bütün həyat və fəaliyyətini Azərbaycan dövlətinin inkişafına, xalqımızın xoşbəxt gələcəyinə həsr etmiş ümummilli lider Heydər Əliyevin dünyaya gəlişindən 88 il ötür. Unudulmaz Heydər Əliyev ideyalarından isə, hazırda milyonlar öyrənir, onun keçdiyi şərəfli və çətin ömür yolundan, apardığı mübarizədən, uzaqgörən ideyalardan bütün dünya bəhrələnir.**

Dünya təcrübəsi də sübut edir ki, əgər dövlətin, xalqın strateji, perspektiv mənafe baxımından onun daxili və xarici siyasətinin ümumiləşmiş konsepsiyasını müəyyən edə bilən şəxsiyyət bu mənafeyi beynəlxalq forumlarda, yüksək tribunalardan müdafiə edə bilən, dövlətin strateji xəttini xalqa sadə şəkildə bəyan edən və dövlətçiliyi ümumxalq işinə çevirməyi, xalqı öz arxasınca aparmağı bacaran şəxsiyyət yoxdursa və nəhayət, dövlətçiliyi qorumağı, onun müdafiəsini təşkil etməyi əməli sürətdə həyata keçirən praktik siyasətçi-diplomat, sərkərdə və komandan daxildə əmin-amanlığı, ölkənin iqtisadi inkişafını təmin etməyi üzərinə götürə bilən qurucu, yaradıcı təsərrüfat rəhbəri yoxdursa, həmin ölkənin nikbin gələcəyindən danışmaq çətindir.

Xarizma, yüksək nüfuz, təşkilatçılıq bacarığı, müdriklik, yüksək intellektuallıq, milli-mənəvi dəyərlərin daim uca tutulması, novatorluq, hadisələrə pozitiv təsir, qətiyyətlilik, prinsipiallıq və bu qəbildən olan digər keyfiyyətlər həm də liderin xalqının inkişafında oynadığı rolu müəyyən edən əsas cəhətlər kimi çıxış edir. Amma dahi liderin yenidən hakimiyyətə qayıdışı, xalqının səsinə səs verməsi Azərbaycan dövlətinin və xalqının xoşbəxt gələcəyinin başlanğıcı idi. Uğurlu fəaliyyətləri ilə tarix yaradan belə liderlər hər zaman beynəlxalq siyasətdə də heyranlıq duyulan şəxsiyyətlər sırasında yer alır, daim böyük hörmət və ehtiramla anılır. Bu mənada Azərbaycan xalqı da özünü xoşbəxt saya bilər ki, kifayət qədər mürəkkəb və ziddiyyətlərlə dolu dövr kimi xarakterizə edilən XX əsrdə 30 ilə yaxın bir müddətdə, xüsusilə əsrin sonlarında Heydər Əliyev kimi xarizmatik lider ölkəmizə rəhbərlik etmiş, məhz bu dahi insanın yorulmaz fəaliyyəti, gərgin zəhməti sayəsində Azərbaycanda baş verən tənəzzül tərəqqi ilə əvəzlənmiş, milli iqtisadiyyatın sürətli və davamlı inkişafı təmin olunmuşdur.

Bu gün Azərbaycan beynəlxalq aləmə sürətlə inteqrasiya edən, dinamik iqtisadi inkişafını və etibarlı siyasi stabilliyini təmin etmiş müstəqil bir dövlətdir. Artıq dövlətimiz mötərəbər kürsülərdən öz sözünü deməyə, öz haqlı mövqeyini bildirməyə və qorumağa qadir, zəngin iqtisadi potensiala malik bir dövlətdir. Müstəqilliyin ilk illərində məlum səbəblərdən bərbad hala düşmüş Azərbaycan iqtisadiyyatında tərəqqiyə nail olunmasına, çox kövrək və zəif dövlət siyasətinin güclü və aparıcı mövqeyə yüksəlməsinə, qədim tarixi və çoxəsrlik zəngin mədəniyyəti olan uca millətimizin bütün dünyada tanıdılması istiqamətində yorulmaz fəaliyyətinin nəticələrinə görə əvəzsiz dövlət xadimi qiymətini almış möhtərəm Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi müxtəlif dövrlərdə müəyyən etdiyi və həyata keçirdiyi strategiya bütün sahələrdə əldə edilən uğurların əsasını təşkil edir. Dünya təcrübəsindən məlumdur ki, dövlət başçısı ölkənin inkişaf tələblərini və xalqın mənafeyini dəqiqliklə qiymətləndirməyə qadir olan, ölkənin mədəni, iqtisadi və təbii resurslarını, potensialını əhalinin rifahı və dövlətçiliyin inkişafına yönəltməyi bacaran şəxs olmalıdır. Bu mənada Azərbaycan xalqı xoşbəxtdir ki, tarix

xalqımıza Heydər Əliyev kimi dünya miqyaslı şəxsiyyətin simasında əsl ümummilli liderə xas olan parametrlərə tam cavab verən, eləcə də xalqımızın və dövlətimizin qarşısında duran çətinlikləri aradan qaldırmaqla Azərbaycan dövlətini qısa zamanda hüquqi, dünyəvi, demokratik inkişaf yoluna çıxarmağa qadir olan dövlət başçısı, ümummilli lider bəxş etmişdir.

Hələ 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi vəzifəsinə təyin olunmuş Heydər Əliyev tez bir zamanda öz gərgin əməyi sayəsində Azərbaycan Respublikasını digər SSRİ respublikaları arasında önə çıxarmışdır. Hakimiyyətinin ilk illərindən etibarən daim öz qayğısını xalqdan əsirgəməmiş, istər I katib işləyərkən, istərsə də ondan sonra İttifaq səviyyəli vəzifələrdə çalışarkən, hər zaman Azərbaycan xalqını, onun maraq və mənafeyini bütün maraqlardan üstün tutan Heydər Əliyev dəfələrlə öz sinəsini sipər kimi qabağa verərək xalqımızın və dövlətimizin əleyhinə qərar qəbul edilməsinə mane olmuş, mötəbər tribunalardan dəyərli, tutarlı və kəskin fikirləri ilə düşmənləri yerində oturtmuşdur.

Əlbəttə ümummilli liderin xidmətlərini bir məqalədə əhatə etmək qeyri-mümkündür. Amma bu tarixi xidmətlərin bəzisini qeyd etmək yerinə düşərdi ki, onlardan da biri azərbaycanlı gənclərin gərəkli ixtisaslara yiyələnməkdən ötrü keçmiş Sovetlər İttifaqının nüfuzlu ali məktəblərinə göndərmək təcrübəsi kimi dəyərli təhsil ənənəsinin əsasının qoyulması idi. Bu yolla Azərbaycanımızın elmi və kadr potensialı yüksəldiyi kimi, xalqımızın milli-mənəvi, əxlaqı dəyərlərinin təbliği də həyata keçirilirdi. Hakimiyyətə gəldiyi ilk günlərdən ulu öndər Heydər Əliyevin gələcəyə hesablanaraq milli dövlət quruculuğunun əsasını təşkil edən strateji proqramında Azərbaycan dilinə qayğı xüsusi olaraq diqqət mərkəzində idi. Ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə Azərbaycan dilinə həqiqi dövlət dili statusu qazandırmağa yönəlmiş fəaliyyətinin bəhrəsi idi ki, 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu təsbit olundu. Dövr baxımından sözün əsl mənasında qəhrəmanlığa bərabər belə bir addım məhz gələcəyin müstəqil yeni Azərbaycanı naminə atılmışdı. Azərbaycan dilinin idarəçilikdə geniş tətbiqi, demək olar ki, bütün böyük klassiklərin ittifaq miqyasında yubileylərinin keçirilməsi, Azərbaycan mədəniyyətinin ümumittifaq miqyasda ön mövqelərə çıxması, elmi, ədəbi, mədəni abidələrin planlı tədqiqi və nəşri - bütün bunlar ulu öndər Heydər Əliyevin gələcək milli dövlətçiliyimizin ideya təməlində dayanan siyasətinin əməli nəticələridir.

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra nail olduğu bütün uğurlar dahi Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev zəngin dövlətçilik təcrübəsindən yararlanaraq uçuruma yuvarlanan, böhranlar içində çabalayan, gələcəyini heç kimin aydın təsəvvür etmədiyi bir ölkəni xilas etdi. Öz sinəsini sipər edərək Azərbaycanın dünya birliyinin müstəqil bir subyekti olmaq hüququnu özünə qaytardı. 1993-cü ildən sonra dahi Heydər Əliyevin qətiyyəti sayəsində çətinliklə də olsa, müstəqilliyin ilk illərində obyektiv və ya subyektiv səbəblərdən ölkəyə vurulan yaralar sağalmağa başladı, Azərbaycan dinamik inkişaf yoluna qədəm qoydu.

Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi təxirə salınmaz sosial-iqtisadi, siyasi və mənəvi tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başladı, digər tərəfdən, bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edilib. Məhz bu müqavilədən sonra ölkəmizin dünya birliyinə inteqrasiya etməsi, öz iqtisadi potensialından səmərəli istifadə edərək dünya bazarına daxil olmağa şərait yaradan beynəlxalq müqavilələr, razılaşmalar və s. əldə edildi. Ölkə daxilində yaranmış nisbi sabitlikdən, həmçinin, beynəlxalq aləmdə Azərbaycana münasibətdə artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" imzalandı. Bununla da ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinə başlanıldı. Ulu öndər Heydər Əliyev Azərbaycanı qüdrətli, nüfuzlu, demokratik dövlət kimi görmək istəyirdi, onun hər addım və hərəkətləri məhz buna yönəlmişdi. Məhz ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən Ana Yasa - Konstitusiya qəbul olundu. Beləliklə də, ölkədə daha geniş miqyaslı islahatların aparılması üçün normativ-hüquqi baza formalaşdırıldı.

Məlumdur ki, azadlıq və müstəqillik həm ayrıca bir vətəndaş üçün, həm də bütöv xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin nemətdir. Biz azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözləmişik, mübarizə aparmışıq, bu yolda minlərlə şəhid vermişik. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir. Başqa sözlə desək, qüdrətli və möhkəm dövlət olmadan azadlıq və müstəqillik də yoxdur.

Bu mənada, Milli Qurtuluş Günü kimi tariximizin şanlı səhifəsi olan 1993-cü ilin 15 iyun günü onu qiymətləndirənlər, dərindən dərk edənlər üçün çox əzizdir. Vətənini, xalqını sevən, həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixi, Azərbaycanda ölüm-

dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə yenə də Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və ona dayaq olan bir insan - Heydər Əliyevdir.

Ümummilli liderin saf ideyaları hər zaman bizimlədir və bu dahi insan haqqında keçmiş zamanda danışmaq çox çətindir. Təəssüf ki, bəzən bu həyatın reallıqları ilə barışmağa məcburuq. Bütün bunlarla yanaşı, danılmaz həqiqətdir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev zəmanəmizin böyük filosofu və mütəfəkkiri, öz dövrünün dahi siyasətçisi, dünya siyasətinin tanınmış simalarından biri idi. Məhz bu dahi insanın formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanı dünyaya tanıtdı, onun müasir dünyada yerini müəyyən etdi, milli dövlətçiliyimizin bünövrəsini təşkil edərək bütün dünya azərbaycanlılarının vahid azərbaycançılıq ideyası ətrafında birləşməsi üçün möhkəm zəmin yaratdı. Azərbaycan ziyalısını son yüzilliklərdə çox ciddi şəkildə düşündürən milli dirçəliş problemləri ulu öndər Heydər Əliyevin həmin illərdəki fəaliyyəti ilə strateji dövlət siyasətinə, elmdən, sosiologiyadan və fəlsəfədən əməli siyasət müstəvisinə keçdi. Xalqımızın dahi oğlu Heydər Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratdı və gələcəyə aparan uzunmüddətli uğurlu strategiyanı müəyyənləşdirdi.

Heydər Əliyevin dövlətçilik proqramında azərbaycançılıq məfkurəsi ilə bağlı diqqəti belə bir məqam çəkir ki, burada mənəvi, bədii, habelə iqtisadiyyat, sənaye, tikinti və təsərrüfatdakı böyük nailiyyətlərlə, əhalinin güzəranındakı yaxşılaşma və kütləvi ruh yüksəkliyi ilə birləşərək vahid axarda gerçəkləşib.

Bir məsələni də qeyd etmək yerinə düşərdi ki, 70 il böyük qardaş hesab etdiyimiz rus ordusu Azərbaycanın müstəqilliyi ilə barışmayıb, yerli rəhbərlərin səriştəsizliyindən istifadə edərək Bakı şəhərində 20 yanvar qırğınını törətdiyi zaman səhərin alaqaranlığında Moskvadakı Azərbaycan nümayəndəliyinə ilk gələn insan da dahi Heydər Əliyev olmuşdur. Nümayəndəlikdə keçirilən iclasda heç nədən çəkinmədən hələ o zaman SSRİ-yə rəhbərlik edən yüksək mənsəbli şəxsləri açıq-aşkar tənqid etmiş, Bakı hadisələrində birbaşa SSRİ rəhbərliyinin məsuliyyət daşıdığını açıqca qeyd etmişdir. Ümumiyyətlə, ulu öndər Heydər Əliyevin xalqımız, müstəqilliyimiz üçün tarixi əhəmiyyət kəsb edən xidmətləri minlərlədir. Bütün bunlar isə, bu dahi insanın xidmətlərinin heç də onun işlədiyi vəzifələrdən deyil, özünün malik olduğu yüksək insani keyfiyyətlərə, polad iradəyə, zəngin dünya görüşünə, hərtərəfli dərin savada malik, millətini və dövlətini hər şeydən üstün tutmasından, vətəninə və millətinə olan sevgisindən irəli gələn bir tələbat idi.

Onu da unutmaq olmaz ki, Azərbaycanın xilaskar oğlu Heydər Əliyevin Azərbaycana rəhbərliyi bir-birindən ciddi surətdə fərqlənən iki müxtəlif sistemə - sosializm və demokratik cəmiyyət dövrünə təsadüf edir. Hər iki sistemdə ölkəyə uzun illər rəhbərlik etmiş dahi Heydər Əliyev istər sosializm, istərsə də bazar iqtisadiyyatı şəraitində Azərbaycan Respublikasını böhrana düşmüş vəziyyətdə qəbul etmişdir. Eyni zamanda, hər iki sistemdə də tezliklə böhran aradan qaldırılmış və sürətli tərəqqiyə nail olunmuşdur. Bütün bunlar isə düşünməyi bacaran hər bir kəsi belə bir sual qarşısında qoyur: bu uğurları ölkəmizə bəxş edən hansı amillər və səbəblərdir? Təbii ki, bu suala müxtəlif cavablar verilə bilər, amma ölkəyə uğur gətirən başlıca amilin ümummilli lider Heydər Əliyevin islahatçılıq məharəti və yüksək idarəçilik keyfiyyətləri ilə bağlıdır. Tək bircə faktı qeyd etmək kifayətdir ki, cənab Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrün 1970-1980-ci illəri əhatə edən on ili ərzində ölkəmizin kənd təsərrüfatına, ondan əvvəlki yarım əsr ərzində, yəni 1920-1970-ci illərdə cəlb edildiyindən daha çox sərmayə qoyulmuşdur. Bu isə, hazırda da sürətlə inkişaf edən kənd təsərrüfatında dinamik inkişafın əsasını qoyaraq hələ o zaman Azərbaycanı digər müttəfiq respublikalardan önə keçirmişdir.

Yuxarıda qeyd olunduğu kimi, müstəqillik illərində də ümummilli liderin hakimiyyətə dönüşü təlatümlü, xalqımız üçün taleyüklü bir dövrə təsadüf edirdi. Belə ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin qarşısında, yenə də müstəqil Azərbaycanı dünya xəritəsindən silinmək təhlükəsindən, ölkədə hər an baş verə biləcək vətəndaş müharibəsindən azad etmək kimi məsuliyyətli və tarixi vəzifələr dururdu. Xalqımız çox gözəl bilirdi ki, ölkəni bu vəziyyətdən yalnız zəngin siyasi-iqtisadi və idarəçilik təcrübəsinə malik Heydər Əliyev şəxsiyyəti xilas edə bilər. Çünki ümummilli liderin uzun illər ərzində qazandığı siyasi təcrübə, idarəçilik bacarığı və doğma vətəninə olan məhəbbəti onun xalqı ilə birlikdə bu missiyanın öhdəsindən şərəflə gələcəyinə heç kimdə şübhə doğurmurdu. Ulu öndər Heydər Əliyev bütün bacarığını səfərbər edərək ölkədə baş alıb gedən tənəzzülü dayandırdı və tezliklə tərəqqiyə nail olundu. Ölkədə mövcud olan problemlər tədricən həllini tapdı, iqtisadi və siyasi stabillik təmin olundu və beləliklə iqtisadi inkişafın sürətləndirilməsi, ölkəmizin beynəlxalq arenada nüfuzunun artırılması, Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılması və s. istiqamətlərdə konkret proqram və layihələrin işlənib hazırlanmasına başlanıldı.

Başqa sözlə desək, siyasi-iqtisadi stabilliyə nail olmaq və Azərbaycanı dünyaya tanıtmaq qarşıda duran ən mühüm vəzifələrdən idi. Ona görə də əldə edilmiş nailiyyətlər ölkə daxilində milli birliyin təmin olunması ilə yanaşı, həm də dünya azərbaycanlıları arasında həmrəyliyin güclənməsinə səbəb olmuşdur. Bu isə, öz növbəsində, müxtəlif ölkələrdə yaşayan soydaşlarımızı daha da ruhlandıraraq onların ölkəmizin milli maraqları

ətrafında sıx birləşmələri üçün ciddi zəmin yaratmışdır. Təbii ki, xaricdə yaşayan həmvətənlərimizin bir ideya ətrafında birləşdirilməsi ölkənin inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu gün onlar dünyanın harasında yaşamalarından asılı olmayaraq Azərbaycanla fəxr edir, onun uğurlarından qürur duyur və fərəh hissi keçirirlər. Ona görə də bu milli birliyə və dünya azərbaycanlılarının həmrəyliyinə nail olduğumuz üçün Türk dünyasının dahi şəxsiyyəti Heydər Əliyevə borcluyuq.

Unudulmaz şəxsiyyət olan Heydər Əliyev bütün fəaliyyəti dövründə xaricdə yaşayan soydaşlarımızın birliyi və təşkilatlanması məsələsini daim diqqət mərkəzində saxlayaraq dünya azərbaycanlılarının vahid məqsəd ətrafında birləşdirilməsinə səy göstərmiş və buna nail olmuşdur. Bu baxımdan ümummilli lider Heydər Əliyevin müvafiq sərəncamı ilə Bakı şəhərində keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayı mühüm əhəmiyyət kəsb etdi. Qurultay xaricdə yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında birləşərək təşkilatlanması istiqamətində yeni mərhələnin başlanğıcını qoydu.

Qeyd etdiyimiz kimi, təşkilatlanma prosesi, dünya azərbaycanlılarını bir araya dəvət etmək təklifi ulu öndərimiz Heydər Əliyev tərəfindən irəli sürülmüşdür. Heydər Əliyevin həyat və fəaliyyəti Azərbaycan xalqına xidmət etməkdən, Azərbaycanı inkişaf etdirməkdən ibarət olmuşdur. İctimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə Azərbaycanın inkişafına xidmət etmiş ümummilli liderimiz məhz Azərbaycanı dünyaya tanıtmaq, həmvətənlərimizin gücünü bir mərkəzə cəmləməklə haqq səsimizi beynəlxalq aləmə çatdırmaq məqsədi daşıyırdı.

Heydər Əliyev ideyalarına sadiq qalan Azərbaycan Prezidenti cənab İlham Əliyev də bu gün xarici ölkələrdə yaşayan azərbaycanlıların problem və qayğılarını daim diqqət mərkəzində saxlayır. Soydaşlarımızla əlaqələri daha da möhkəmləndirmək və qarşıda duran vəzifələri müzakirə etmək məqsədilə Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi bunun bariz nümunəsidir. Qurultay Azərbaycanın sürətli inkişafı və beynəlxalq arenada siyasi mövqeyinin daha da gücləndirilməsi istiqamətində tarixi işlərin görülməsinə şərait yaratmışdır. Məhz dünya azərbaycanlılarının, ümumilikdə türk diaspor təşkilatlarının bir amal uğrunda birləşdirilməsinə xidmət edən qərarların qəbul edilməsinin və bu istiqamətdə görülən genişmiqyaslı tədbirlərin nəticəsidir ki, artıq dünyada güclü, öz sözünü deyə bilən, siyasi proseslərə təsir etmək iqtidarında olan diaspor təşkilatları formalaşdırılmışdır.

Bir məsələni də qeyd etmək lazımdır ki, 2009-cu ildən etibarən Xocalı faciəsinin qurbanları, demək olar ki, bütün dünya ölkələrində anılır, hadisələrin səbəbləri və günahkarı olan mənfur ermənilərin və onların havadarlarının insanlığa yaraşmayan simaları bütün dünyaya nümayiş etdirilir. Bu da, heç şübhəsiz, bütün digər amillərlə yanaşı həm də güclü diaspor təşkilatlanması ilə bağlıdır. Bütün bunlar isə, qeyd olunduğu kimi, ümummilli liderin çoxsaylı xidmətlərindən biridir.

**“Xalq qəzeti”.-**2011.-5 may.-N 96.-S.3.

# HEYDƏR ƏLİYEV SİYASƏTİNİN TƏNTƏNƏSİ

**Vüqar Rəhimzadə,**
YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru,
Əməkdar jurnalist

Xalqın, millətin böyüklüyü say tərkibi ilə deyil, soy-kökünün qədimliyi, tarixinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərinin zənginliyi, ən əsası bəşəriyyətə bəxş etdiyi tarixi şəxsiyyətləri ilə müəyyənləşir. Ölkəmizdən çox-çox uzaqlarda şöhrət tapmış dövlət xadimləri, siyasətçilər, uzaqgörənliyi ilə tanınan müdrik şəxsiyyətlər haqqında söz düşəndə, ilk növbədə, Ümummilli lider Heydər Əliyevin adı çəkilir. Ulu öndər Heydər Əliyev xalqımızın dünya tarixinə bəxş etdiyi elə qüdrətli dövlət xadimlərindəndir ki, yeni-yeni nəsillər zaman-zaman Onun ömür yoluna müraciət edəcək, zəngin irsini araşdıracaq, təhlil edəcək, öyrənəcək, liderlik məktəbindən dərs alacaqlar. Hər bir xalq, millət keçmişinə hörmət bəslədikdə onun gələcəyi parlaq olur, dünyada özünü yüksək səviyyədə təsdiq edir. Ulu öndər Heydər Əliyev Azərbaycanın keçmişi deyil, ölkəmizin bugünkü uğurları və perspektivləri Onun adı ilə bağlıdır.

Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini özündə əks etdirən çoxlu kitablar yazılıb və bundan sonra da yazılacaq. Bu, yalnız Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi ilə deyil, Onun şəxsiyyətinin miqyası, dünyagörüşünün genişliyi və Azərbaycan xalqı, dövləti qarşısındakı misilsiz xidmətləri ilə bağlıdır. Şəxsiyyətin böyüklüyü onun sadəliyində ifadə olunur. Ulu öndər Heydər Əliyev "Mən çox böyük sınaqlardan keçmiş bir adamam və həyatımı da özümə yox, xalqıma həsr etmişəm" söyləməklə Vətənə, xalqına olan məhəbbətini aydın şəkildə ifadə edirdi.

"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır" - söyləyən Ulu öndər Heydər Əliyev istər sovetlər dönəmində, istərsə də 1993-cü ildən sonra ölkənin iqtisadi, sosial inkişafı istiqamətində mühüm addımlar atmış, Azərbaycanın bugünkü inkişaf səviyyəsinə çatmasının möhkəm təməlini qoymuşdur. Heydər Əliyev ideyaları Azərbaycanın dünəninin, bu gününün və sabahının təminatçısıdır. Bugünkü Azərbaycan Ümummilli liderin əsasını qoyduğu möhkəm təməl üzərində ucalır. Arzusu, amalı Azərbaycanı iqtisadi cəhətdən inkişaf etmiş müstəqil, dünya birliyində tanınan bütöv bir dövlət kimi görmək idi. Ölkəmizin hərtərəfli inkişafında iqtisadiyyatın rolunu önə çəkən Ulu öndər Heydər Əliyevin bu sahədə gördüyü işləri ətraflı təhlil etsək, Onun uzaqgörənliyinin bir daha əyani şahidi olarıq.

Ulu öndər Heydər Əliyev hələ 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrlərdə iqtisadiyyatın inkişafına xüsusi diqqət göstərərək, ölkəmizi geridə qalmış respublikadan çiçəklənən, inkişaf edən bir diyara çevirmişdir. Ən böyük sənaye obyektlərinin tikilib istifadəyə verilməsi, sosial infrastrukturun formalaşması, yüksək səviyyədə elmi tədqiqatların aparılması, kadr hazırlığı, gənclərin dünyanın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi və digər istiqamətlərdə əldə olunan uğurlar Ümummilli lider Heydər Əliyevin əzmkar fəaliyyətinin nəticəsidir. Sovetlər birliyi dövründə ölkəmizi qabaqcıl respublikalar sırasına çıxardığı kimi, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə dövlətçilik tarixinin yeni mərhələsinin, müstəqilliyi əbədiləşdirən uğurlu bir yolun başlanğıcını qoydu.

Bir məqamı da xüsusi qeyd etmək istərdim ki, Ulu öndər Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin sədri olarkən Muxtar Respublikada həyata keçirdiyi islahatlar sonradan daha böyük miqyasda, bütün Azərbaycanda tətbiq olundu. Onun Naxçıvanda yaşadığı illərə nəzər saldıqda aydın görürük ki, bu gün haqqında ürəkdolusu danışdığımız və ölkəmizin beynəlxalq aləmdə nüfuzunu artıran yeniliklərin, islahatların təməli məhz o çətin illərdə qoyulub.

Ulu öndər siyasətə qayıtdığı ilk gündən "nədən başlamalı" sualına qarşıdakı onillər üçün hesablanmış addımları ilə cavab verdi. Naxçıvan parlamentinin 1990-cı ilin noyabrında keçirilən sessiyasında Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın suverenliyi və müstəqilliyi üçün böyük əhəmiyyəti olan mühüm qərarlar qəbul olundu. "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan MR dövlət hakimiyyəti orqanları haqqında", "Naxçıvan MR-in dövlət rəmzləri haqqında", "1990-cı ilin yanvar ayında törədilən Bakı

hadisələrinə siyasi qiymət verilməsi haqqında"kı tarixi qərarlar dərin zəkadan doğan siyasi uzaqgörənliyin nümunəsi olmaqla, sonrakı islahatlar üçün bağlanğıc oldu.

1991-ci ilin 3 sentyabrında Naxçıvan MR Ali Məclisinin sədri seçilən Heydər Əliyevin rəhbərliyi ilə keçirilən bütün yığıncaqlar tarixi hadisə kimi hər zaman üçün aktual idi. O dövrdə həyata keçirdiyi islahatlar haqqında geniş danışmağa ehtiyac olmasa da, onların xronikasına nəzər salmaqla müdrik insanın xidmətləri barədə aydın təsəvvür yaratmaq mümkündür.

Ulu öndər Heydər Əliyevin "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir" sözləri real həyatda gerçəkləşdi. Uzaqgörən siyasətçi yaxşı bilirdi ki, azadlıq, müstəqillik olmayan yerdə inkişaf, yenilik barədə danışmaq qeyri-mümkündür.

Müstəqil, iqtisadi cəhətdən qüdrətli, vahid, dünya birliyinin tanıyıb, hörmət etdiyi Azərbaycan kimi bir dövləti yaratmaq, xilaskar kimi Ulu öndər Heydər Əliyevə nəsib oldu. Onun hakimiyyətə qayıdışı ilə milli ideologiyamızın əks olunduğu dövlətçilik konsepsiyası hazırlandı. 1993-cü ildə ölkəmizin üzərini qara buludların aldığı çətin bir vaxtda, Ulu öndər Heydər Əliyev xalqın çağırışına səs verərək, düçar olduğumuz bəla və xaosu aradan qaldırmaq üçün heç bir dahi, müdrik dövlət başçısının öhdəsindən gələ bilməyəcəyi bir məsuliyyəti üzərinə götürməklə Azərbaycanın əbədi müstəqilliyini təmin etdi. "Heydər Əliyev müasir Azərbaycanın qurucusu, memarıdır" fikri reallığa əsaslanır. Uğurlu daxili və xarici siyasəti ilə Azərbaycanı sabitlik diyarına çevirən Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi neft strategiyası Azərbaycanın dünya iqtisadi məkanına inteqrasiyasını sürətləndirdi. Ölkəmiz qısa müddətdə böyük investisiyalar məkanına çevrildi. Dahi lider bildirirdi ki, Azərbaycanın digər ölkələrlə əməkdaşlığına daha əlverişli şərait yaradan cəhətlər ölkənin iqtisadi potensialı, yeraltı və yerüstü sərvətləri, intellektual potensialı ilə yanaşı, coğrafi mövqeyidir. Azərbaycan yerləşdiyi coğrafi məkana, malik olduğu təbii resurslara görə daim dünya dövlətlərinin diqqətində olub. Lakin inkaredilməz həqiqətdir ki, bu diqqət Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra daha da artmağa başladı. Bunun da səbəbi dövlətimizin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində daha da qüdrətlənməsi, iqtisadi imkanlarının artması idi.

Bu fikir də daim bildirilirdi ki, "iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir". İqtisadi tərəqqi digər sahələrin inkişafı üçün əsasdır. Müstəqillik əldə etdikdən sonra öz sərvətlərinin tam sahibi olan Azərbaycan xalqının gələcəyini düşünən və ölkənin iqtisadi inkişafı üçün ən səmərəli yollar axtaran Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətinin əsasında neft amilindən istifadə etməklə, Azərbaycanın dünya iqtisadi bazarına inteqrasiyası kimi önəmli məsələ dayanırdı. Neft strategiyasını müəyyənləşdirməklə Azərbaycanın tarixində yeni bir mərhələnin başlanğıcı qoyuldu. "1994-cü ildən Azərbaycan özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha səmərəli istifadə etməkdən asılıdır". Ulu öndərin proqram xarakterli bu sözləri tək neft sənayesinin deyil, iqtisadiyyatın bütün sahələrinin inkişaf yollarını aydın göstərir. Dünyada elə dövlət yoxdur ki, müəyyən qədər təbii sərvətlərə malik olmasın. Azərbaycan isə payına düşən sərvətlərin zənginliyinə, strateji əhəmiyyətinə görə fərqlidir. Bu gerçəkliyi də unutmaq olmaz ki, təbii ehtiyatlardan düzgün istifadə edildikdə, o, zəngin sərvətə çevrilir. Neft strategiyasının əsasını da bu prinsiplər təşkil edir.

Dövlət siyasətinin əsas prioritetləri kimi böyük əhəmiyyətə malik, Avropa və dünya birliyi dövlətlərinin enerji təhlükəsizliyinin təminatında etibarlı tərəfdaş sayılan Azərbaycanın lider dövlət kimi tanınmasının təməlində də Ulu öndər tərəfindən qoyulan daxili və xarici siyasətin uğurlu həlli dayanır. Bütün xalqlar və dövlətlərlə qarşılıqlı anlaşma və əməkdaşlıq siyasətini yeridən Azərbaycanın ən tanınmış beynəlxalq təşkilatlarda təmsil olunub, söz sahibi nüfuzu qazanması müdrik bir siyasətin məntiqi nəticəsi kimi bu gün də özünü doğruldur. "Əsrin müqaviləsi"nin, onun ilk bəhrəsi olan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin dünyada doğurduğu əks-səda Azərbaycana marağı artırmaqla, respublikamızı regionda lider dövlət kimi tanıtdırdı.

Bir faktı qeyd etmək kifayətdir ki, "Əsrin müqaviləsi"ndən sonra 31 saziş imzalanıb. Bu, Azərbaycana olan diqqətin, ən başlıcası isə həyata keçirilən siyasətin gələcəyinə inamın göstəricisidir. Ulu öndər Heydər Əliyev qısa müddətdə ölkənin hərtərəfli inkişafını təmin etməklə xalq-iqtidar birliyini daha da möhkəmləndirdi, bu həmrəyliyi sarsılmaz etdi.

Ulu öndərin 1993-1998-ci illərdə gördüyü işlər 11 oktyabr 1998-ci ildə keçirilən prezident seçkilərində qələbəsini yenidən təkrarlamasına böyük zəmin yaratdı. Prezidentliyinin ilk mərhələsində həyata keçirdiyi islahatlar, böhran içərisində qalan Azərbaycanın iqtisadiyyatının gücləndirilməsi istiqamətində həyata keçirdiyi genişmiqyaslı quruculuq işləri xalqın gələcəyə olan inamını doğrultmaqla ölkəmizin dünya birliyinə açılan yoluna işıq saldı. Azərbaycanın səsi bir çox beynəlxalq təşkilatların tribunasından eşidildi, diplomatik uğurlar bir-birini əvəzlədi. Yalanları ilə dünyada cərəyan edən proseslərə təsir etmək imkanlarına malik olan ermənilərin və erməni diasporunun əsassız təbliğatları faktlar əsasında ifşa olundu. Ulu öndər Heydər Əliyev uğurlu daxili və xarici siyasəti ilə Azərbaycanın ətrafında yaradılan informasiya blokadasının yarılmasına nail oldu. Dünya siyasətində dəst-xətti ilə seçilən Ümummilli lider Heydər Əliyev şəxsiyyəti müdriklik simvolu kimi nümunə göstərilirdi.

1998-ci ildə keçirilən prezident seçkilərində xalqın böyük əksəriyyətinin etimadını qazanan Ulu öndər Heydər Əliyev növbəti illər üçün fəaliyyət konsepsiyasını açıqladı. Azərbaycanın gələcək inkişaf yolunun parametrlərini dahiyanə düşüncələri və zəngin dövlətçilik təcrübəsinə əsasən xalqa çatdıraraq əsas vəzifə kimi respublikada dövlət quruculuğuna diqqət yetirdi. Demokratik sivilizasiyalı cəmiyyətdə insan hüquqlarının qorunması, çoxpartiyalı sistemin yaradılması, müxalif qüvvələrlə konstruktiv əməkdaşlıq baxımından qanunlara əsaslanan mövqeyini bəyan etdi. Ümummilli lider Heydər Əliyevin ölkəmizə ikinci dəfə rəhbərlik etdiyi 1993-2003-cü illərdə insan hüquq və azadlıqlarının müdafiəsi üçün möhkəm təməl formalaşdırılmışdır. 1998-ci ildə Şərqdə ilk dəfə olaraq, ölkəmizdə ölüm hökmü ləğv olundu. Bu gün dünyanın bir çox qabaqcıl ölkələrində belə ölüm cəzasının hələ də ləğv olunmadığını və mütəmadi olaraq tətbiq edildiyini nəzərə alsaq, o zaman Ulu öndərin bu addımının nə dərəcədə böyük hüquqi, tarixi dəyərinin olduğunu dərk etmiş olarıq. Heydər Əliyevin həyata keçirdiyi dövlət siyasətinin mahiyyətini özündə əks etdirən humanistlik prinsipinin nəticəsində 1995-ci ildən əfv və amnistiya təsisatları bərpa edilmiş, həmin dövrdən etibarən imzalanmış Sərəncam və fərmanlara əsasən minlərlə vətəndaşımız azadlığa qovuşmuşdur. Ümummilli lider hər kəsin hüquqlarına hörmətlə yanaşılmasını, şəxsiyyətin alçaldılması, zorakılıq, işgəncə, bu kimi qeyri-qanuni üsul və vasitələrə yol verilməsi hallarının aradan qaldırılmasını hüquq-mühafizə orqanları qarşısında vacib vəzifə kimi qoymuşdur. Ulu öndərin rəhbərliyi ilə 1995-ci il noyabrın 12-də qəbul olunmuş Milli Konstitusiyada bu məsələ önə çəkilir.

Demokratiyanın vacib amillərindən biri kimi söz, mətbuat azadlığının inkişafı istiqamətində də Ulu öndər Heydər Əliyevin atdığı addımlar daim təqdir olunur. Mətbuatın dünya təcrübəsindən bəhrələnməsi, xüsusilə KİV-in maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, o cümlədən, jurnalistlərin peşə səviyyəsinin yüksəldilməsi və hüquqlarının qorunması üçün bütün zəruri addımlar atılmış və tədbirlər həyata keçirilmişdir.

Mətbuatımızın inkişaf tarixinə nəzər salsaq qeyd edə bilərik ki, bu tərəqqi daha çox 1998-ci ildə senzuranın ləğvindən sonra nəzərə çarpmağa başladı. Ölkədə xeyli sayda müstəqil mətbu orqanın və informasiya agentliklərinin, müstəqil elektron KİV-lərin, jurnalist qurumlarının və bu sahədə qeyri-hökumət təşkilatlarının azad fəaliyyət göstərməsi demokratik mətbuatın mövcudluğunu təsdiq edən amillərdir. Ümummilli lider Heydər Əliyevin milli mətbuatımız qarşısındakı xidmətləri ictimai-siyasi miqyasına, tarixi əhəmiyyətinə və mahiyyətinə görə olduqca böyükdür. Ölkədə azad və müstəqil mətbuatın inkişafı, jurnalistlərin hüquqlarının qorunması üçün köklü islahatlar aparıldı, qanunlar qəbul edildi.

Heydər Əliyevin xalqımız qarşısındakı xidmətlərindən bəhs edərkən ölkəmizin əldə etdiyi siyasi və iqtisadi uğurlarla yanaşı, özünəməxsus vətəndaşlıq həmrəyliyi fəlsəfəsi olan azərbaycançılıq konsepsiyası, bütün Türk dünyasının birliyi ideyası, Azərbaycan dili və ədəbiyyatı, milli-mənəvi, dini dəyərlərimiz, hüquqi dövlətin yaradılması, vətəndaş cəmiyyətinin formalaşması, dünya azərbaycanlılarının təşkilatlanması və s. bu kimi məsələlər göz önünə gəlir. Onun siyasətinin, fəaliyyətinin fəlsəfi kökündə milli təfəkkür, milli şüur, milli düşüncə, azərbaycançılıq məfkurəsi dayanırdı.

Ulu öndər Heydər Əliyev "Bizim vətəndaşlıq borcumuz milli-mənəvi dəyərlərimizə, doğma torpağımıza, doğma ana dilimizə, dinimizə, böyük və zəngin tariximizə, millətimizə sadiq olmaqdan ibarətdir" deyərək milli dəyərlərimizə, düşüncə və ideologiyamıza yeni çalarlar əlavə etmişdir. Ümummilli lider bütün dünya azərbaycanlılarını bir ideya-azərbaycançılıq ideyası ətrafında sıx birləşməyə çağırdı.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün əsası 1991-ci ilin 16 dekabrında Ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. O illərdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri olan Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi.

Ulu öndər xalqın təkidli tələbi ilə 1993-cü ildə hakimiyyətə qayıdışından sonra da xaricdə yaşayan azərbaycanlıların birliyi və təşkilatlanması məsələsini dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirmiş, müxtəlif xarici ölkələrə çoxsaylı səfərlərində Azərbaycan diasporunun nümayəndələri ilə görüşlər keçirmiş, onların problem və qayğılarına daim böyük həssaslıqla yanaşmışdır. Azərbaycanın diaspor təşkilatlarına öz tövsiyələrini verən Ulu öndər xarici ölkələrdəki səfirliklərimizi də diaspor quruculuğu prosesinə cəlb etmiş, həmvətənlərimizi Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni həyatında real iştiraka istiqamətləndirmişdir. Heydər Əliyev dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında mənəvi, siyasi birliyin və həmrəyliyin təmin olunması, Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin ətraflı müzakirə edilməsini nəzərə alaraq, 2001-ci ilin may ayının 23-də xüsusi Sərəncam imzalamış, həmin Sərəncama uyğun olaraq 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayı xaricdəki soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında sıx birləşməklə təşkilatlanması baxımından tarixi əhəmiyyət kəsb etmişdir. Bu addım diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoydu.

Ən ağrılı problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində də mühüm addımlar atıldı. Ulu öndər Heydər Əliyev xarici ölkələrə səfərləri zamanı əsas diqqəti bu münaqişəyə yönəldərək, Ermənistanın işğalçılıq siyasətini dünyaya bəyan etdi. Ulu öndər Heydər Əliyev diplomatik mübarizənin gücləndirilməsi ilə yanaşı "Bizim məqsədimiz müharibə etmək deyil. Ordumuzun yaranması, formalaşması, möhkəmlənməsi yalnız və yalnız Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etmək üçün lazımdır. Biz düşdüyümüz vəziyyətdən sülh yolu ilə çıxmaq istəyirik" söyləyərək ordu quruculuğu sahəsində mühüm addımlar atdı.

Ümummilli lider, eyni zamanda, müasir Azərbaycanın siyasi həyatının ən əlamətdar hadisələrindən olan Yeni Azərbaycan Partiyasının yaradıcısıdır. Yeni Azərbaycan Partiyasının yaradılması həmin dövrün tələbi idi. Ölkəmizin ağır durumunda 91 nəfər Azərbaycan ziyalısının Ulu öndər Heydər Əliyevə "Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir" müraciəti ölkə ictimaiyyəti arasında böyük canlanma yaratdı. Bu, yalnız 91 nəfərin deyil, ölkədə baş alıb gedən özbaşınalıqdan, siyasi gərginlikdən səbr kasası dolmuş bütöv bir xalqın Heydər Əliyevə böyük ümidinin ifadəsi idi. Ulu öndər Heydər Əliyev Azərbaycan ziyalılarının müraciətinə cavabında bildirmişdir: "Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi tarixi hadisədir və şübhəsiz ki, bütün azərbaycanlıları, bütün Azərbaycan vətəndaşlarını hədsiz dərəcədə sevindirir. Eyni zamanda, bu əlamətdar hadisə müstəqil Azərbaycan dövləti, Azərbaycan xalqı qarşısında çox məsul, mürəkkəb, çətin vəzifələr qoyur. İndi əsas vəzifə dövlətçiliyin, müstəqilliyin bərqərar olunmasını, milli-demokratik dövlətin formalaşmasını, müstəqil Azərbaycanın suverenliyini, təhlükəsizliyini təmin etmək və vətəndaşlara azad, xoşbəxt, firavan həyat şəraiti yaratmaqdan ibarətdir. Bu xeyirxah və şərəfli işə hər bir vətənpərvər öz layiqli töhfəsini verməlidir".

Yeni Azərbaycan Partiyasının təsis konfransı 21 noyabr 1992-ci ildə Naxçıvanda keçirilərək, Ulu öndər Heydər Əliyev YAP-ın Sədri seçildi. Konfransda Azərbaycanın əksər rayonlarından cəmiyyətin bütün təbəqələrini təmsil edən 550-dən artıq nümayəndə iştirak etmişdi. Bu gün partiyanın sıralarında 500 mindən artıq üzvün birləşməsi məhz Heydər Əliyev ideyalarına sədaqətin, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin gələcəyinə inamın göstəricisidir.

Bu gün Azərbaycan Heydər Əliyev yolu ilə irəliləyir. Ümummilli liderin müəyyənləşdirdiyi strategiyanın Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi ölkəmiz qarşısında böyük imkanlar açır. Bir faktı qeyd etmək kifayətdir ki, 2009-cu ildə başlanan və hələ də dünyada davam edən iqtisadi və maliyyə böhranı hər bir ölkənin hansı potensiala malik olduğunu açıqladı. Azərbaycan uğurlu iqtisadi

göstəriciləri ilə dünyanın diqqətində oldu. Bu reallıq beynəlxalq ekspertlər tərəfindən də etiraf olundu ki, Azərbaycanın bu sınaqdan şərəflə çıxmasına səbəb iqtisadiyyatımızın düzgün əsaslar üzərində qurulmasıdır.

Gündən-günə daha da qüdrətlənən ölkəmiz, eyni zamanda, bu uğurların qazanılmasına əsas verən Prezident İlham Əliyevin siyasəti barədə bir-birindən maraqlı, diqqətçəkən fikirlər söylənilir. Ümumi rəy budur ki, xalqın etimadını qazanan, hər bir vədini konkret əməli işi ilə sübut edən dövlət başçısına milyonların sevgisi şəksizdir. Cənab İlham Əliyev 2003-2008-ci illər Prezidentliyi dövründə hər bir sahədə həyata keçirdiyi tədbirlər, uğurlu layihələrlə 2008-ci ilin 15 oktyabr prezident seçkilərində növbəti beş il üçün də qələbəsinə zəmin yaratdı. Xalqımız 2008-ci il prezident seçkilərində cənab İlham Əliyevi dəstəkləməklə uğurlu sabaha səs verdi.

Azərbaycanın dinamik və sabit inkişafı üçün müstəsna əhəmiyyəti olan neft siyasətinin incəliklərinə dərindən bələd olan cənab İlham Əliyevin əsası Ulu öndər tərəfindən qoyulan neft strategiyasını uğurla davam etdirməsi ilə Azərbaycanın uğurları bir-birini əvəzləməkdədir. Daim neft ölkəsi kimi tanınan Azərbaycan bu gün həm də qaz ixracatçısıdır.

“Azərbaycanın bütün neft-qazı, təbii ehtiyatları xalqa xidmət etməlidir, neftdən əldə olunan gəlirlər şəffaf şəkildə və ədalətli bölünməlidir”. Cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı gündən neft-qaz gəlirlərindən səmərəli istifadəni qarşıya ən ümdə məqsəd kimi qoyub. Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi olaraq yaradılan Dövlət Neft Fondunun aktivlərinin həcminin ildən-ilə artması, mühüm sosial-iqtisadi layihələrin həyata keçirilməsi də deyilənlərin təsdiqidir. Dövlət Neft Fondu dövlət siyasətinin prioritetlərini ifadə edir. Belə ki, Fondda toplanan vəsaitlər müxtəlif sosial-iqtisadi layihələrin gerçəkləşməsinə yönəldilir. Ötən ilin sosial-iqtisadi uğurlarından biri kimi Oğuz-Qəbələ-Bakı su kəmərinin istifadəyə verilməsini xüsusi qeyd etməliyik. Bu layihə də Fondun vəsaitləri hesabına həyata keçirilmişdir. “Neft Fondunun xətti ilə icra edilmiş layihələr bizim üçün prioritet layihələrdir” söyləyən dövlət başçısı İlham Əliyev bildirir ki, əgər iqtisadi imkanlarımız olmasaydı, biz bu layihəni həyata keçirə bilməzdik.

Azərbaycanın uzunmüddətli inkişaf perspektivlərini çox böyük nikbinliklə qeyd edən dövlət başçısı İlham Əliyev bildirir ki, hər beş il üçün strateji xətt əsasında müvafiq proqramlar tərtib olunur və yüksək səviyyədə icra edilir.

Ölkə iqtisadiyyatının inkişafında neft-qaz amilinin rolu böyükdür. Lakin neftdən əldə olunan gəlirlərin düzgün istifadəsi, iqtisadiyyatın şaxələndirilməsinə geniş imkanların açılması Azərbaycanın hərtərəfli inkişafını təmin edir. İqtisadi sahədə həyata keçirilən tədbirlər bazar iqtisadiyyatı mexanizmləri əsasında sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, yerli və xarici investisiyaları, müasir texnologiyaları cəlb etmək və qabaqcıl idarəetmə təcrübəsindən faydalanmaqla rəqabətə davamlı məhsul istehsal edən müəssisələrin, yeni iş yerlərinin yaradılmasına, bir sözlə ölkənin iqtisadi qüdrətinin artırılmasına yönəlib. Uğurlu neft strategiyasının həyata keçirilməsi nəticəsində ilbəil artan neft və qaz gəlirlərini qeyri-neft sektoruna yönəltməklə iqtisadiyyatın tarazlı inkişafına nail olmaq son illər Azərbaycan dövləti qarşısında duran ən mühüm vəzifələrdən biridir. Bu baxımdan regionların inkişafının sürətləndirilməsi dövlətin iqtisadi siyasətinin başlıca hədəflərindən biri kimi müəyyənləşdirilib.

1994-cü ildən başlayaraq Azərbaycanın dinamik sosial-iqtisadi inkişafı, yaradılan əlverişli biznes mühiti daim xarici sərmayədarların ölkəmizə xüsusi maraq göstərməsinə səbəb olub. Bunun nəticəsidir ki, investisiya cəlbediciliyi baxımından Azərbaycan lider ölkələr siyahısında yer alır. 2010-cu ildə ölkə iqtisadiyyatına 15,5 milyard dollar vəsait qoyulub. Qeyri-neft sektoruna qoyulan investisiyalar neft sektorundan çoxdur. 15,5 milyard dollardan 9,3 milyard dolları qeyri-neft sektoruna qoyulan sərmayədir. Dövlət başçısı bildirir: “Bu da onu göstərir ki, bir neçə il bundan əvvəl bəyan etdiyimiz proqram və konseptual yanaşmamız həyatda öz əksini tapır. Yəni, bizim planlarımız həyata keçirilir, nəzərdə tutduğumuz bütün proqramlar reallaşır və dediyim rəqəmlər bunun bariz nümunəsidir. Mən əminəm ki, bu il də ölkə iqtisadiyyatına böyük məbləğdə investisiyalar qoyulacaqdır. Biz elə etməliyik ki, bu investisiyalar daha da böyük rəqəmlərlə ölçülsün və beləliklə, ölkə iqtisadiyyatı daha da sürətlə inkişaf etsin”.

İnvestisiyalar sahəsində Azərbaycan nüfuzlu beynəlxalq təşkilatlarla da sıx əməkdaşlıq edir və onlardan kredit, eləcə də, digər formalarda vəsaitlər cəlb olunur. Bu sahədə Dünya Bankı ilə əməkdaşlıq daha çox diqqəti

cəlb edir. Dünya Bankının maliyyələşdirdiyi layihələrin miqyası genişdir. Bu, sosial müdafiə sisteminin, qaçqın və məcburi köçkünlərin rifahının yaxşılaşması, eləcə də, iri infrastruktur layihələridir.

Azərbaycanda əlverişli investisiya mühitinin olması Dünya Bankının hesabatlarında da öz əksini tapır. Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası Azərbaycanı 2009-2010-cu illərdə biznes mühitin yaxşılaşdırılmasına dair islahatların aparılması üzrə ən islahatçı ölkə elan edib.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan investisiya imkanlarını daha da möhkəmləndirir. Son yeddi ildə yatırılan investisiyalar və məqsədyönlü sosial-iqtisadi tədbirlər nəticəsində ölkədə 900 mindən artıq iş yeri yaradılıb, yoxsulluğun səviyyəsi 9,1 faizə enib. Regionların inkişafına dair həyata keçirilən proqramlar sayəsində bütün bölgələrdə istehsal sahələrinin sıx şəbəkəsi təmin edilib, əhalinin gəlirləri dəfələrlə artıb. Azərbaycan iqtisadi artım tempinə görə dünyada lider ölkəyə çevrilib. İqtisadi qüdrətin artması maliyyə imkanlarının genişlənməsinə səbəb olur. Dövlət başçısı İlham Əliyev bildirir ki, biz bu gün istənilən böyük maliyyə resursları tələb edən layihəni öz gücümüzlə icra edə bilərik.

Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində iqtisadiyyatımızın bugünkü vəziyyəti artıq keçid proqramının əsas məqsədlərinə nail olunduğunu və keçid dövrünün başa çatdığını təsdiq edir. Bütün bunlar göstərir ki, ölkəmizin iqtisadi inkişafı yeni keyfiyyət mərhələsinə daxil olub. Yeni mərhələnin əsas məqsədi, milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə və dünya iqtisadi sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, uzunmüddətli perspektivə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir. Prezident İlham Əliyevin imzaladığı fərmanlarda, təsdiq etdiyi iqtisadi siyasət sənədlərində bu məqsədin gerçəkləşməsi üçün yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyənləşdirilib.

Oğuz-Qəbələ-Bakı su kəmərinin istifadəyə verilməsi mərasimində dövlət başçısı İlham Əliyev diqqəti bir daha uğurlarımıza yönəldərək bildirmişdir ki, biz bundan sonra da çalışacağıq ki, ölkə qarşısında duran bütün vəzifələri uğurla icra edək. “Bizim konkret proqramlarımız-regional inkişaf proqramı, ölkəmizin gələcək inkişaf proqramı vardır. Biz fəaliyyətimizi bu proqramlara uyğun şəkildə qururuq. Son illər ərzində əldə edilmiş uğurlar, artan iqtisadiyyat və gözəlləşən, abadlaşan şəhərlər, yeniləşən infrastruktur-bütün bunlar Azərbaycan reallıqlarıdır”.

Həyata keçirilən mühüm, nəhəng layihələr Azərbaycan dövlətinin gücünün, qüdrətinin, potensial imkanlarının göstəricisidir. Azərbaycan dövləti bu su kəmərini çəkməklə bir daha sübut etdi ki, öz qüvvəsi, maliyyə imkanları hesabına ən mürəkkəb layihələri icra edə və onu məntiqi sonluğa çatdıra bilər.

Ölkə iqtisadiyyatının inkişafı üçün əsas amil olan enerji təhlükəsizliyinin təminatı istiqamətində də önəmli addımlar atılır. Enerjiyə olan tələbatını daxili imkanar hesabına ödəyən Azərbaycan dünya dövlətlərinin enerji təhlükəsizliyinin təminatında mühüm rolu ilə etibarlı tərəfdaş mövqeyini daha da möhkəmləndirir. Son illərdə Azərbaycanda neft-qaz hasilatı böyük həcmdə artıb. Əgər 2003-cü ildə neft hasilatı 15,4 milyon ton idisə, ötən il bu rəqəm qat-qat olmuşdur. 2003-cü ildə 5,5 milyard kubmetr qaz hasil edilirdi, ötən il 27 milyard kubmetrə yaxın olmuşdur. Bütün bunlar proqnozların doğrulacağına inam yaradır. Belə ki, 2015-ci ildə neft hasilatının 60 milyon tona və qaz hasilatının 34 milyard kubmetrə çatdırılması nəzərdə tutulub.

Azərbaycanın karbohidrogen ehtiyatlarını nəql edən 7 neft-qaz kəməri var. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, bu, dünya bazarına birbaşa çıxış olmayan ölkə üçün həlledici məsələdir: “Neft-qaz sərvəti nə qədər olursa-olsun, bunları dünya bazarına çıxarmaq mümkün olmadığı təqdirdə onun heç bir mənası yoxdur”.

Azərbaycanın iqtisadi və siyasi mövqeyini möhkəmləndirməsi ən ağrılı problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə də yol açır. Azərbaycanın haqlı mövqeyini dəstəkləyən dövlətlərin və təşkilatların sayının artması Prezident İlham Əliyevin qətiyyət və səyinin nəticəsidir. Cənab İlham Əliyev ən yüksək tribunalardan Azərbaycanın dəyişməz mövqeyini bəyan edir. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil. Münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında həllini tapmalıdır. Azərbaycanın ötən ildə əldə etdiyi diplomatik uğurlardan bəhs edərkən NATO-nun Lissabon, ATƏT-in Astana sammitində qəbul olunan qətnamələri xüsusilə qeyd etməliyik. Eyni zamanda, Avropa Parlamenti Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qətnamə qəbul etdi.

Qəbul olunan sənədlərdə ölkəmizin ədalət prinsiplərinə əsaslanan mövqeyi öz əksini tapıb.

"Mən bu fikirdəyəm ki, ölkəmizin davamlı və uzunmüddətli inkişafı, bütün digər cəhətlərlə yanaşı, ilk növbədə, demokratiyanın, inkişaf səviyyəsindən və hər bir vətəndaşın hüquq və azadlıqlarının təmin edilməsindən asılıdır" söyləyən Prezident İlham Əliyev ölkədə insan hüquqlarının, söz, mətbuat, vicdan azadlığının qorunmasına xüsusi diqqət və qayğı ilə yanaşır.

Bu gün ölkəmizdə beynəlxalq standartlar səviyyəsində kütləvi informasiya vasitələrinin mövcudluğu Ulu öndər Heydər Əliyevin və Azərbaycan Prezidenti İlham Əliyevin demokratik dəyərləri uca tutmaları sayəsində mümkün olmuşdur. Dövlət başçısı İlham Əliyev Ulu öndərin Azərbaycan mətbuatının inkişafı yolunda göstərdiyi xidmətləri davam etdirir, jurnalistlərin dostu olduğunu sözdə deyil, əməldə sübuta yetirir. "Mən həmişə mətbuat üçün açıq olmuşam." Prezident İlham Əliyev mətbuata münasibətini aydın şəkildə bildirir.

Dövlət başçısının azad mətbuatın inkişafını daim diqqətdə saxlaması, bu istiqamətdə imzaladığı sərəncamlar beynəlxalq aləmdə təqdir olunur, Azərbaycanın demokratik dəyərlərə sadiqliyini sübut edir.

Ölkəmizdə mətbuata sistemli, fundamental dövlət qayğısı artıq ənənəyə çevrilib. Digər sahələr kimi mətbuatın da inkişafının təməli Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub və bu gün də bu siyasət uğurla davam etdirilir. Bu ənənə hər il özünəməxsusluğu ilə seçilir. Son illərə diqqət yetirək. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" təsdiqləndi. Sənədin təsdiqlənməsi ilə milli mətbuatın problemlərinin həllində keyfiyyətcə yeni mərhələnin başlanğıcı qoyuldu. Dövlət orqanları ilə kütləvi informasiya vasitələri arasında səmərəli əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi, KİV-lərin iqtisadi müstəqilliyinin və jurnalistlərin peşəkarlığının artırılması, vətəndaş cəmiyyəti quruculuğunda mətbuatın rolunun gücləndirilməsi məqsədilə təsdiqlənən bu sənəddə qeyd edildiyi kimi, dövlətin informasiya siyasətinin başlıca vəzifələrindən biri kütləvi informasiya vasitələrinin fəaliyyətində şəxsiyyət, cəmiyyət və dövlət maraqlarının tarazlaşdırılmasına yönəlmiş hüquqi, iqtisadi, təşkilati və texnoloji tədbirlərin müəyyən edilməsidir. Konsepsiyaya uyğun olaraq ölkə Prezidentinin 3 aprel 2009-cu il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Prezidenti Yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradıldı. 22 may 2009-cu il tarixli Sərəncama əsasən isə Azərbaycan Respublikası Prezidenti Yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru və Müşahidə Şurasının üzvləri təyin edildi. Bu kimi addımların atılmasında yeganə məqsəd müstəqil mətbuatın inkişafını təmin etmək, mətbuatın maddi-texniki bazasını möhkəmləndirmək, jurnalistlərin sosial vəziyyətini yaxşılaşdırmaqdır. Lakin ötən il mətbuat tarixində daha mühüm hadisələrlə yadda qaldı.

Belə ki, dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə mətbuatımızın 135 illik yubileyinin ölkəmizdə geniş qeyd olunması, həmin ərəfədə Mətbuat Şurasının yeni binasının istifadəyə verilməsi və möhtərəm Prezidentimizin açılış mərasimində iştirakı, "Azərbaycan milli mətbuatının 135 illiyi ilə əlaqədar tədbirlərin maliyyələşdirilməsi və Azərbaycan Respublikasının kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımının göstərilməsi haqqında", "Mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri haqqında", həmçinin, milli mətbuatın inkişafındakı xidmətlərinə görə, 100-ə yaxın jurnalistin fəxri adlarla təltif olunması haqqında sərəncamları bu qayğının davamlılığını təsdiqləyir. Bütün bunlar həqiqi qələm sahibləri üçün böyük mənəvi dividenddir. Onlar peşələrinə diqqətlə yanaşıldığını görür və bu amil, heç şübhəsiz, gələcək fəaliyyətlərinə müsbət təsir göstərir. Digər tərəfdən, jurnalistikanın cəmiyyətdə nüfuzu artır. Jurnalistlərin mənzil problemlərinin həlli ilə bağlı imzalanmış Sərəncam isə xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə ayrılmış 5 milyon manat məbləğində vəsait mətbuat tarixində müsbət mənada böyük bir hadisə idi. Ümumiyyətlə, bu, dünyada analoqu olmayan bir hadisə idi. Mətbuata qayğıya ehtiyacı olan heç bir ölkədə dövlət tərəfindən məhz belə geniş miqyaslı mütərəqqi addımların atılmasına dair təcrübə yoxdur. Dövlət başçısı jurnalist ictimaiyyəti ilə görüşündə görülən işlərin yalnız başlanğıc olduğunu vurğuladı.

Mətbuata dövlət tərəfindən qayğının bu səviyyədə olduğu halda, onun dəyərləndirilməsi vacib məqamlardandır. Bu mənada, "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin "Jurnalistlərin dostu" mükafatı ilə bağlı keçirdiyi sorğunu xüsusi vurğulamaq lazımdır. Sorğunun nəticələri jurnalist ictimaiyyətinin

obyektiv yanaşma tərzinin təsdiqi baxımından müstəsna səciyyə daşıdı. Keçirilən sorğunun nəticələrinə uyğun olaraq möhtərəm Prezidentimiz İlham Əliyevin "Jurnalistlərin dostu" nominasiyasının qalibi olması tamamilə təbii idi və hər bir sağlam düşüncəli jurnalistin ürəyindən olan bir istək idi. 2010-cu il dekabrın 29-da "Gülüstan" sarayında möhtərəm Prezidentimiz İlham Əliyevin iştirakı ilə keçirilən təqdimetmə mərasimində ölkə başçısı bir daha qeyd etdi ki, hüquqi dövləti azad mətbuatsız təsəvvür etmək mümkün deyil. Məhz buna görə, Azərbaycanda söz azadlığı, vicdan azadlığı, plüralizm meyilləri gücləndirilməlidir. "Jurnalistlərin dostu olmaq mənim üçün böyük şərəfdir" söyləyən dövlət başçısı İlham Əliyev atılan addımların davamlı olacağını bildirdi: "Bir daha demək istəyirəm ki, aldığım bu mükafatdan asılı olmayaraq, mən bundan sonra da çalışacağam ki, Azərbaycanda bu sahədə daha da böyük addımlar atılsın. Azərbaycan dövləti öz dəstəyini göstərsin. Ölkədə müasir jurnalistikanın formalaşması işində Azərbaycan dövləti və Prezident kimi mən səylərimi əsirgəməyəcəyəm."

Dövlət başçısının çıxışı media sahəsində daha böyük tədbirlərin gerçəkləşəcəyinə, yeni nailiyyətlərin olacağına bir mesajdır.

Müstəqil dövlətimizin son 17 ildə qazandığı uğurları bir yazıda əhatə etmək qeyri-mümkündür. Ümumiləşdirmiş şəkildə deyə bilərik ki, artıq keçid dövrünü başa vuran, Ulu öndər Heydər Əliyevin şah əsəri olan müstəqil, demokratik, iqtisadiyyatı sürətlə inkişaf edən Azərbaycan ən yüksək zirvələri fəth edir. Bu inkişafın əsasında isə qeyd olunduğu kimi, Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət və bu xəttin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi dayanır. Ümummilli lider Heydər Əliyevin 2003-cü il prezident seçkilərindən öncə xalqa müraciətini bir daha xatırlatmaq istərdik: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizinköməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Son 7 ilin statistikası bu fikrin təsdiqi, Heydər Əliyev siyasətinin qələbəsidir.

**"Yeni Azərbaycan".-**2011.-5 may.-№79.-S.4-5.

# HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT XƏTTİ VƏ MÜASİRLİK

**Səməd SEYİDOV,**
Milli Məclisin Beynəlxalq münasibətlər və
parlamentlərarası komitəsinin sədri,
Azərbaycan Dillər Universitetinin rektoru

**Ölkəmizin ən yeni tarixinin bütöv bir dövrü xalqımızın ümummilli lideri Heydər Əliyevin möhtəşəm siyasi və dövlətçilik fəaliyyəti ilə bağlıdır. Türkiyənin tanınmış dövlət xadimi Bülənt Ecevit böyük siyasətçi Heydər Əliyevin yalnız Azərbaycan xalqı deyil, bütün türk dünyası qarşısında xidmətlərini qiymətləndirərkən böyük fəxrlə demişdir: "Qüdrətli öndərsiz bir millət heç nəyə nail ola bilməz. Heydər Əlirza oğlu Atatürk qədər qüdrətli bir türkdür. Heydər Əlirza oğlu min ildən bir yetişən dahilərdəndir".**

Dünya şöhrətli siyasətçi, görkəmli dövlət xadimi, alovlu vətənpərvər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi 1969-1982-ci illərdə, həmçinin 1982-1987-ci illərdə keçmiş Sovet İttifaqının liderlərindən biri olduğu dövrdə Azərbaycanın dövlət müstəqilliyi üçün möhkəm zəmin və bünövrə yaradılmış, siyasi, iqtisadi və mədəni sahələrdə çox ciddi nailiyyətlər əldə edilmişdir. Həmin illərdə respublikamızda güclü iqtisadiyyat və kadr potensialı yaradılmış, Azərbaycan İttifaqın ən qabaqcıl müttəfiq respublikalarından birinə çevrilmişdi.

Bütün bu tarixi dönüşün, inkişaf və tərəqqinin əsası isə ulu öndər Heydər Əliyevin 1969-cu il iyul ayının 14-də Azərbaycana rəhbər seçilməsi ilə qoyulmuşdur. Təsadüfi deyil ki, təqvimin bu günü xalqımızın yaddaşında dönüş anı, şərəfli bir tarixin başlanğıc günü kimi qalır. Məlum olduğu kimi, hər bir ölkənin inkişaf etməsi, irəli getməsi iqtisadiyyat sahəsində qazanılan uğurlardan başlayır. Məhz öz fəaliyyətində bu tezisi rəhbər tutan ümummilli lider Heydər Əliyev xalqın, dövlətin gələcəyinin bu günün iqtisadiyyatından asılı olduğunu böyük uzaqgörənliklə görür, dərk edirdi.

Ulu öndər respublika iqtisadiyyatının inkişafını öz fəaliyyətinin başlıca prioritetlərindən biri hesab edirdi. Buna qədər isə iqtisadiyyatı dərin böhran keçirən Azərbaycan çox böyük çətinliklərlə üzləşmişdi. İqtisadiyyatın aparıcı sahələri sayılan sənaye və kənd təsərrüfatında məhsuldar qüvvələrin düzgün yerləşdirilməməsi, mövcud potensiallardan səmərəli istifadə edilməməsi ucbatından böhran getdikcə dərinləşirdi. Zəngin təbii sərvətlərinə baxmayaraq, Azərbaycan keçmiş İttifaqın ən geridə qalmış respublikalarından birinə çevrilmişdi. Digər tərəfdən, mərkəzi hökumətin respublikamıza uzun illər əsas xammal mənbəyi kimi baxması da inkişaf və tərəqqini ləngidir, böhranı getdikcə dərinləşdirirdi.

Belə bir şəraitdə, ilk növbədə, mərkəzin Azərbaycana bu cür laqeyd münasibətinin dəyişdirilməsinə nail olmaq lazım gəlirdi. Həmin dövrdə kifayət qədər böyük təcrübəyə, siyasi iradəyə və yüksək nüfuza malik olan Heydər Əliyev bunu bacara bildi. Sovet rejiminin bütün xüsusiyyətlərini dərindən bilən və zəngin idarəçilik təcrübəsinə malik olan ulu öndər respublikamızın inkişafı üçün ən vacib məsələləri Sov.İKP. MK-nın Siyasi Bürosuna, MK-nın plenumlarına, partiya qurultaylarına çıxarır, zəruri qərarların qəbul edilməsinə nail olurdu. Məhz Heydər Əliyevin qətiyyəti və ölkə rəhbərliyini inandırmaq bacarığı sayəsində nəhəng sənaye müəssisələrinin Azərbaycanda tikintisinə nail olunurdu. Təkcə onu demək kifayətdir ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə respublikamızda yüzlərlə zavod, fabrik, istehsal sahələri yaradılmış, 213 iri sənaye müəssisəsi işə salınmışdır. 1970-80-ci illərdə Azərbaycan dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac edirdi.

Azərbaycana rəhbər seçildiyi ilk gündən etibarən ulu öndər respublikada geniş islahatlara başladı. İlk növbədə, respublika iqtisadiyyatına dərindən bələd olan bacarıqlı kadrlar rəhbər vəzifələrə irəli çəkildi, onların normal fəaliyyəti üçün hər cür şərait yaradıldı. Qısa müddətdə iqtisadiyyatda köklü struktur və keyfiyyət dəyişiklikləri baş verdi. Tərəqqi yolunda maneəyə çevrilmiş bütün neqativ hallara qarşı mübarizə sistemli şəkil aldı. Həyata keçirilmiş bütün bu tədbirlər respublikamızı sürətli inkişaf yoluna çıxardı, Azərbaycan cəmi bir neçə il ərzində SSRİ-nin ən qabaqcıl respublikalarından birinə çevrildi. Təkcə onu demək kifayətdir ki, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illər ərzində respublikada milli gəlirin ümumi həcmi 2,5 dəfə, sənaye istehsalı 2 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 2,7 dəfə, xalq istehlakı mallarının istehsalı isə 3 dəfə artmışdı.

Bütün bunlarla yanaşı, ulu öndər Heydər Əliyev yaxşı bilirdi ki, Azərbaycanın gələcək inkişafı savadlı gənclərin, bacarıqlı kadrların yetişdirilməsindən çox asılıdır. Məhz buna görə də o, gənclərin SSRİ-nin ən qabaqcıl və tanınmış ali məktəblərində təhsil almaları üçün çox böyük səy göstərir, sonradan respublikamıza qayıdan həmin kadrların işlə təminatına xüsusi diqqət yetirirdi. Təsadüfi deyil ki, Azərbaycan ötən əsrin sonlarında yenidən müstəqillik əldə etdikdən sonra məlum oldu ki, respublikamızda həyatın bütün sahələrində

yüksək savada və zəngin təcrübəyə malik kadrlarımız, mütəxəssislərimiz var. Vaxtilə ulu öndər Heydər Əliyevin böyük diqqət və qayğısını görmüş, onun xeyir-duasını almış həmin mütəxəssislər bu gün də Azərbaycanın müstəqilliyinin qorunmasında, ölkəmizin inkişaf etdirilməsində, dövlətçiliyimizin möhkəmləndirilməsində yaxından iştirak edirlər.

Heydər Əliyevin yüksək idarəçilik məharəti, gözəl təşkilatçılıq qabiliyyəti, insanlarla işləmək bacarığı, iqtisadiyyatı dərindən bilməsi İttifaq rəhbərliyinin diqqətini getdikcə daha çox cəlb edirdi. Məhz belə bir şəraitdə - 1982-ci ilin sonlarında Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi son dərəcə mühüm və məsuliyyətli bir posta təyin olundu. Nəhəng bir ölkənin təsərrüfat həyatının bir çox sahələrinin işinə nəzarət məhz birbaşa ona etibar edildi. Heydər Əliyev belə bir məsul vəzifədə işləməklə yanaşı, Azərbaycanın problemləri ilə də daim məşğul olurdu, sözün əsl mənasında, Azərbaycanla yaşayırdı.

Heydər Əliyevi ümummilli lider səviyyəsinə yüksəldən əsas cəhətlərdən biri də onun Azərbaycanla, Azərbaycan xalqı ilə qırılmaz tellərlə bağlı olması idi. Təsadüfi deyildi ki, ümummilli liderimiz sonradan bu barədə deyirdi: "Mən on il Moskvada yaşamışam, Sovetlər İttifaqının rəhbərlərindən biri olmuşam və bu rəhbərliyin imkan verdiyi ən yüksək şəraitdə yaşamışam. Bir an da Azərbaycanı unutmamışam, ürəyim daim Azərbaycanla vurub. Sonra qayıtmışam Azərbaycana, Naxçıvanda bir daxmada yaşamışam. Gecəm də Azərbaycan olub, gündüzüm də. Çünki bu, mənim Azərbaycanımdır, mənim Vətənimdir".

Doğrudan da, Azərbaycanı düşünmək, Azərbaycanla yaşamaq onun başlıca amalı, həyatının mənası idi. Heydər Əliyev keçmiş sovet sisteminin sərt qayda-qanunlarının hakim olduğu bir şəraitdə belə, daim respublikamızın tərəqqisi naminə əsl liderə xas olan keyfiyyətlərdən bacarıqla istifadə etmiş, xalqını yeni, daha miqyaslı yaradıcı, məhsuldar əməyə səfərbər edə bilmişdi.

Ulu öndər Heydər Əliyevin Vətən sevgisinin sərhədi yox idi. Onun Vətən, xalq üçün çalışmaq həvəsi, millətinə mümkün qədər çox fayda vermək istəyi sonsuz idi. Təsadüfi deyildi ki, ötən əsrin sonlarında müstəqilliyini yenicə əldə etmiş Azərbaycan ağır, çətin sınaq qarşısında qalanda Heydər Əliyev xalqının səsinə səs verdi, xilaskarlıq missiyasını öz üzərinə götürdü. "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" - deyərək hakimiyyət sükanı arxasına keçdi. O, qısa müddətdə dövlətlə xalqın birliyini, yekdilliyini təmin etdi, hakimiyyət böhranını aradan qaldırdı, ölkədə mühüm ictimai-siyasi sabitliyə nail oldu.

Heydər Əliyev respublikamızda quruculuq, yaradıcılıq işlərinin başlıca istiqamətlərini müəyyən etdi. Ümummilli liderimiz Azərbaycan dövlətinin strateji yolunun yalnız demokratiya, sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı, sahibkarlıq yolu olduğunu göstərdi.

Ölkənin sosial-iqtisadi inkişaf strategiyasının başlıca konturlarını müəyyən edən ulu öndər Heydər Əliyev Azərbaycanın qapılarını xarici sərmayədarların üzünə açıq elan etdi. Öz növbəsində, Azərbaycanda ictimai-siyasi sabitliyin, burada əlverişli investisiya mühitinin mövcudluğuna əmin olan xarici iş adamları ölkəmizin iqtisadiyyatına, xüsusən də, neft sənayesinə maraq göstərməyə başladılar. Belə bir şəraitdə - 1994-cü il sentyabrın 20-də Bakıda dünyanın 7 ölkəsini təmsil edən 11 iri neft şirkəti ilə "Əsrin müqaviləsi" adlandırılan neft sazişi imzalandı. Bu addım Azərbaycan iqtisadiyyatına böyük uğurlar gətirdi. Təkcə onu demək kifayətdir ki, ulu öndər Heydər Əliyevin bilavasitə qayğısı və yaxından köməyi ilə reallaşdırılan "Əsrin müqaviləsi" çərçivəsində görülən işlərə doqquz il ərzində 20 milyard dollardan çox investisiya qoyuldu. Bu da dünya ölkələrində Heydər Əliyevə, onun şah əsəri adlandırılan Azərbaycana inam və etibarın məntiqi nəticəsi idi.

Heydər Əliyevin Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi 10 il əsl quruculuq-yaradıcılıq dövrü kimi tarixə düşmüşdür. Bu dövrdə Azərbaycan sosial-iqtisadi sahələrdə, ordu quruculuğunda, beynəlxalq münasibətlərdə böyük uğurlar qazanmış, ölkəmizin nüfuzu xeyli artmışdır. Daim doğma Vətənini, xalqımızın gələcəyini düşünən ümummilli lider deyirdi: "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır". Doğrudan da, bu gün Azərbaycanda elə bir sahə yoxdur ki, onun yüksək inkişafında, tərəqqisində Heydər Əliyevin izi olmasın. Bu mənada Azərbaycanda sahibkarlığın, özəl bölmənin bugünkü inkişafı da məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Ölkəmizdə Avropa dəyərlərinə uyğun aparılan hüquqi islahatlar da məhz Heydər Əliyevin adı ilə bağlıdır. Hüquq qaydalarının, qanunçuluğun möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının təminatlı müdafiəsinə görə üçpilləli məhkəmə sistemimizin yaradılması, yeni, müasir tələblərə uyğun hakim korpusunun formalaşdırılması Heydər Əliyevin xidmətləridir.

Müstəqilliyimizin möhkəmlənməsində, hüquqi, demokratik dövlət quruculuğu işində ilk müstəqil Konstitusiyamızın xüsusi yeri var. "Heydər Əliyev Konstitusiyası" kimi tarixə düşən Əsas Qanunumuz insan hüquq və azadlıqlarının təminatlı müdafiəsi sahəsində mükəmməl bir sənəddir. Odur ki, bir çox ekspertlər haqlı olaraq Konstitusiyamızı "İnsan hüquqları manifesti" də adlandırırlar. Bu, ümummilli liderimizin xidmətləridir.

Şərqdə ilk dəfə ölüm cəzasının ləğv edilməsi Azərbaycanda baş tutdu. Bu gün də bir sıra inkişaf etmiş ölkələrdə hələ də qüvvədə olan bu cəza növünün ölkəmizdə ləğv edilməsi çox cəsarətli addım idi və onu

ümummilli liderimiz reallaşdırdı. Tarixə belə həkk olundu, belə də qalacaq və yüz illər sonra da insan hüquqlarının müdafiəçiləri bu mövzudan danışanda ümummilli liderimizi hörmət və izzətlə yad edəcəklər.

Heydər Əliyev 1993-cü ildən 2001-ci ilədək 68 ölkənin prezidenti və dövlət başçısı ilə 485 görüş keçirmişdir. Bu görüşlərin hamısında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunmuşdur. Konkret rəqəmlərlə ifadə etsək, Heydər Əliyev ABŞ-ın Prezidenti, xarici işlər naziri ilə bu məsələni 18, Fransa rəhbərləri ilə 16, Rusiya ilə 23, Türkiyə rəhbərləri ilə 78 dəfə müzakirə etmişdir. BMT-nin baş katibləri ilə onlarca görüş olmuşdur, NATO-nun, Müstəqil Dövlətlər Birliyinin zirvə görüşlərində, İslam Konfransı Təşkilatının iki, İqtisadi Əməkdaşlıq Təşkilatının dörd zirvə görüşündə, türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşlərində hər dəfə Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağıq Qarabağ münaqişəsini gündəliyə çıxarmışdır.

ATƏT-in Lissabon zirvə görüşündən sonra Minsk qrupunun həmsədrləri dünyanın üç ən böyük dövləti - Rusiya, ABŞ, Fransa oldu. Minsk qrupunun həmsədrləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair indiyədək üç təklif vermişlər. Onların 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif münaqişənin paket həllini, 1997-ci ilin oktyabrında verdikləri ikinci təklif isə münaqişənin mərhələli həllini nəzərdə tuturdu. 1998-ci ilin noyabrında həmsədrlər yeni, üçüncü təklif - "ümumi dövlət" təklifini verdilər.

Nəhayət, 1999-cu ilin aprelindən başlayaraq, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində yeni bir format yaranıb və o, öz fəaliyyəti ilə əslində, ATƏT-in Minsk qrupunun işini tamamlayır. Bu, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa dialoqudur. Heydər Əliyevin Ermənistanın sabiq dövlət başçısı Robert Koçaryan ilə Cenevrədə, Moskvada, İstanbulda, Parisdə, Minskdə, Davosda, Yaltada, Soçidə, respublikamızın sərhədində çoxsaylı görüşləri olmuşdur.

Ermənistan Prezidenti ilə danışıqlar zamanı Heydər Əliyev əsasən münaqişənin tezliklə sülh yolu ilə tənzimlənməsi və Ermənistan ilə Azərbaycan arasında uzunmüddətli möhkəm sülh yaradılması üçün qarşılıqlı surətdə məqbul kompromislərin axtarışı ilə məşğul olmuşdur. Qeyd etmək lazımdır ki, 1999-cu ilin axırlarında prezidentlər kompromis əldə edilməsinə yaxın idilər. Lakin Ermənistan əldə olunmuş razılaşmalardan tezliklə geri çəkildi.

Bu gün danışıqlar prosesində yaranmış vəziyyət isə beynəlxalq münasibətlərdə təhlükəli presedent yaradır. Beynəlxalq birlik beynəlxalq hüququn norma və prinsiplərinə ciddi əməl olunmasını, bunların möhkəmləndirilməsini təmin etmək əvəzinə, qətiyyətsizlik nümayiş etdirir. Ərazi bütövlüyünün toxunulmazlığı, sərhədlərin pozulmazlığı kimi beynəlxalq hüququn fundamental norma və prinsipləri sual altına qoyulur və bununla da, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda yaşayan 100 min erməniyə görə beynəlxalq praktikanın, beynəlxalq hüququn on illər boyu formalaşmış dayaqları sarsıdılır. Hərbi təcavüzün tanınması nəticəsində əldə edilmiş sülh, sabitlik və təhlükəsizlik isə möhkəm və əbədi ola bilməz.

Bütün dünyanın bəhrələnəcəyi Böyük İpək yolu çox qədim ticarət marşrutudur. Uzun illərdir ki, dünya alimləri bu sahədə baş sındırır, Şərqlə Qərbi, ümumiyyətlə, dünyanı dolaşan təhlükəsiz və səmərəli nəqliyyat yolu haqqında düşünürlər. Böyük-böyük elmi-tədqiqat institutları bu problemlə məşğuldurlar. Ümummilli lider dünyada yeni müharibə ocaqlarının getdikcə artdığı, Şərqlə Qərbin ziddiyətli bir dövründə bu qədim İpək yolunun bərpasını gündəmə gətirdi və məntiqlə sübut etdi ki, bu yola alternativ heç bir layihə ola bilməz. Təbii ki, bu layihədə əsas keçid Azərbaycandır və illər keçdikcə onun bəhrəsini daha çox görəcəyik.

Təsadüfi deyil ki, müstəqil Azərbaycanın gələcəyini bazar iqtisadiyyatının inkişaf etdirilməsində görən ümummilli lider bu məqsədlə ölkədə yenicə formalaşmaqda olan sahibkarlar təbəqəsinə hər cür qayğı və diqqət göstərirdi. Heydər Əliyev daim iş adamlarının mənəvi hamisi kimi çıxış edərək onların üzləşdikləri problemlərin aşkarlanması məqsədilə dövlət-sahibkar dialoqunun genişləndirilməsinə çalışırdı. Elə 2002-ci ilin aprel və may aylarında yerli və xarici iş adamları ilə keçirdiyi görüşlər zamanı ulu öndər sahibkarları üzləşdikləri problemlər barədə açıq danışmağa dəvət etdi, onları səbir və təmkinlə dinləyərək mövcud çətinliklərin, ölkədə özəl bölmənin inkişafına mane olan süni əngəllərin dərhal aradan qaldırılması üçün dövlət qurumlarına konkret tapşırıqlar verdi.

Xalqımızın ümummilli lideri Heydər Əliyev əzəmətli bioqrafiyası ilə nəsillərə örnək olan bir ömür yaşamış nadir şəxsiyyət, titanik fəaliyyət dairəsinə malik bir insan idi. Belə bir şərəfli ömür, fenomenal siyasi bioqrafiya isə hər kəsə nəsib olmur. Heydər Əliyevin taleyinin möhtəşəmliyi və bənzərsizliyi bir də onda idi ki, o, bütün şüurlu həyatını bütövlükdə doğma xalqına, Vətəninə, müasir Azərbaycanın inkişafına həsr etmişdi.

Daim Vətənini, xalqını düşünən ulu öndər Azərbaycana cənab İlham Əliyev kimi praqmatik düşüncəyə, siyasi təfəkkürə malik bir lider bəxş etdi. Bu gün ulu öndərin siyasi kursu, ümummilli mənafeyə yönəldilmiş islahatlar strategiyası xalqımıza uğurla xidmət göstərir. Bu siyasəti müasir dövrün tələblərinə uyğun, yaradıcı şəkildə davam etdirən möhtərəm Prezident İlham Əliyev ölkənin bütün problemlərinə milli dövlətçilik

prinsipləri kontekstindən yanaşır, onların uğurlu həllinə nail olur. Bir sözlə, bu gün ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi düzgün siyasət Azərbaycanı davamlı inkişafa və tərəqqiyə, xalqımızı firavan gələcəyə aparır.

**"Azərbaycan".-**2011.-6 may.-N 97.-S.6.

# TARİX ŞƏXSİYYƏTLƏRİ DEYİL, ŞƏXSİYYƏTLƏR TARİXİ YARADIR!

**Xanlar VƏLİYEV,**
Azərbaycan Respublikası Baş prokurorunun müavini-
Azərbaycan Respublikasının hərbi prokuroru,
ədliyyə general-leytenantı

## Vətənə, xalqa, ulu öndərimiz Heydər Əliyevin ideyalarına, Prezident İlham Əliyevin siyasi kursuna sədaqət dinamik inkişafın etibarlı təməlidir

**Tarix nədən yaranır? Tarixi insanlar yaradır. İnsanların şəxsiyyəti tarixi yaradır - əgər onlar şəxsiyyətdirlərsə. Bir də ki, bu şəxsiyyətlərin yaratdıqları əsərlər, qoyub getdiyi irs bu tarixi yaradır.**

***Heydər ƏLİYEV***
***Ümummilli lider***

**Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri var. Hazırda bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayır və möhkəmlənir.**

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Tarixin millətə verdiyi şansı yalnız görkəmli tarixi şəxsiyyətlərin iştirakı və rəhbərliyi ilə reallaşdırmaq mümkündür. Bu mənada Mustafa Kamal Atatürkün Türkiyə, Şarl De Qollun Fransa üçün etdiklərini ulu öndərimiz Heydər Əliyev ən çətin məqamda Vətəni və xalqı naminə edib. XX əsr Azərbaycan tarixinin ən qüdrətli dövlət xadimi, dahi şəxsiyyəti olan ümummilli lider Heydər Əliyevin unudulmaz xatirəsi tək bu əlamətdar günlərdə deyil, bütün zamanlarda xüsusi minnətdarlıq və ehtiramla anılır. Mənalı və şərəfli ömrünü Azərbaycan dövlətinə, xalqına təmənnasız xidmətə həsr etməklə əbədiyaşarlıq rəmzinə çevrilən ulu öndər haqlı olaraq DÜNYANIN ƏN BÖYÜK AZƏRBAYCANLISI olaraq qədirbilən xalqımızın güvənc yeri olacaqdır.**

Xalqlarının taleyində mühüm rol oynamış şəxsiyyətlər bir qayda olaraq tarixin gedişinə təsir göstərir və xilaskar missiyaları ilə yeni bir salnamə yaradırlar. XX əsrdə xalqımızın yetirdiyi fenomen şəxsiyyət - ulu öndər Heydər Əliyev də məhz belə liderlərdən biri olaraq müasir Azərbaycan dövlətinin ideoloji-siyasi əsaslarını milli irs və düşüncə əsasında yaradaraq praktik surətdə gerçəkləşdirmiş strateq kimi hər zaman böyük rəğbət və ehtiramla xatırlanır. Xalqımız qərinələr boyu qazandığı dövlətçilik ənənələrini məhz Heydər Əliyev epoxasında təkmilləşdirərək sistem halına salmış, millət kimi mövcudluğunu, özünüidarə bacarığını ən yüksək səviyyədə nümayiş etdirmişdir. Azərbaycanı müstəqil dövlət quruculuğuna aparan kəşməkəşli və şərəfli yol, əslində, məhz ulu öndərin hakimiyyətə gəlişindən sonra başlamışdır.

Heydər Əliyev siyasi tariximizə qurucu və xilaskar kimi daxil olmuş görkəmli dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan dahi bir şəxsiyyətdir. Xalqımızın taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərən ikinci bir adam tapmaq çətindir.

Onun dahiyanə siyasəti, böyük cəsarət və qətiyyətlə gördüyü bütün işlər həmişə xalqımıza mənəvi dayaq olmuş, respublikamıza beynəlxalq aləmdə böyük hörmət, nüfuz, şan-şöhrət gətirmiş, dünya xalqlarının məhəbbət və rəğbətini qazanmışdır. O, XX əsrin görkəmli liderlərindən biri kimi tutduğu bütün vəzifələrdə özünü beynəlxalq miqyaslı siyasətçi, zəkalı rəhbər kimi göstərmişdir.

Heydər Əliyev tarixə, zəngin təcrübəyə və səriştəyə, xüsusən reallıqlara, həyatın irəli sürdüyü tələblərə, inkişafın perspektivlərinə, tez-tez dəyişən həyatın dialektikasına əsaslanıb nəzəri və həyatla bağlı mürəkkəb siyasi situasiyada düzgün mövqeyi müəyyənləşdirməyi bacaran dövlət xadimi idi.

Tarix boyu bir çox siyasət adamları hakimiyyətə can atmış və çox hallarda da buna nail olmuşlar. Lakin bunların bəziləri öz təfəkkür məhdudluqları üzündən son nəticədə diktatorlara, digərləri isə öz iradə zəiflikləri ucbatından ətrafdakıların oyuncağına çevrilmişlər. Məhz bunları nəzərdə tutan fransız mütəfəkkiri Pol Anri Holbax yazırdı: "Hakimiyyət yalnız o vaxt böyük nemət olur ki, onu əldə edən adama təbiət tərbiyə və alicənablıq, qüvvətli ruh, geniş ürək, dərin ağıl, böyük təcrübə vermişdir". Nəsrəddin Tusi isə yazırdı: "Hökmranlıq o adama yaraşır ki, cəmiyyət xəstələndikdə onu müalicə edə bilsin. Çünki hökmdar ölkənin həkimi

yerində olmalıdır". Təbiət və tarix isə bu kimi ülvi keyfiyyətlərin üzvi bir vəhdət halında birləşdiyi fenomenal şəxsiyyətləri çox az-az yetirir. Müasir dünya siyasətinin patriarxlarından olan Heydər Əliyev kimi. Məhz bu keyfiyyətlərin sayəsindədir ki, o, öz hakimiyyətini səlahiyyətlərinin gücü ilə yox, şəxsiyyətinin qüdrəti ilə həyata keçirməklə, qarşısındakıları zəkası və uzaqgörənliyi ilə əfsunlayırdı. Heç də təsadüfi deyildir ki, dünyanın böyük siyasətçiləri, dövlət xadimləri, elm və incəsənət korifeyləri ulu öndərimiz Heydər Əliyevi "canlı əfsanə" adlandırırdı. Məhz buna görədir ki, Heydər Əliyev şəxsiyyətindən, müdrikliyindən xalqımız həmişə qürur duymuş və fərəh hissi keçirmişdir.

XX əsrin sonlarına yaxın dövlət müstəqilliyini əldə etmiş Azərbaycan xalqı da üzləşdiyi bir sıra faciələri məhz ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi altında mətinliklə aradan qaldırmış, milli varlıq və idrakının, özünüdərkin ali təzahür forması olan müstəqil dövlət ideyasını uğurla gerçəkləşdirmişdir. Ümummilli liderimiz Heydər Əliyevin 34 illik hakimiyyətinin ikinci mərhələsi nə qədər təlatümlü, ziddiyyətli, ictimai-siyasi gərginliklərlə səciyyələnən dövrə təsadüf etsə də, ona xas uzaqgörənlik və siyasi müdriklik, iradə yenilməzliyi, ən əsası, doğma Vətəni düçar olduğu bəlalardan xilas etmək istəyi ölkəmizi sürətlə fəlakətə aparan təhlükəli proseslərin qarşısını almağa, xalqın müstəqilliyə və firavan gələcəyə inamını qaytarmağa müvəffəq olan yeganə qüvvə olmuşdur.

Ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətində ağır anlar, gərgin məqamlar çox olsa da, 1993-cü ilin iyununda Azərbaycanın düçar olduğu təhlükəli və gərgin vəziyyət onu həyatının bəlkə də ən çətin sınağı ilə üzləşdirmişdi. Ölkədə hakimiyyət böhranı yaranmış, ictimai-siyasi sabitlik pozulmuş, xaos və anarxiya, hərc-mərclik mühiti formalaşmış, vətəndaş qarşıdurması dərinləşmiş, qanunçuluq və hüquq qaydalarının təminatında ciddi problemlər yaranmışdı. Bu sarsıntı və təlatümlər təsdiqlədi ki, yalnız polad iradəyə, fitri idarəçilik keyfiyyətlərinə, geniş siyasi dünyagörüşə malik xarizmatik lider Azərbaycanın dövlət müstəqilliyini qorumaq və yaşatmaq kimi ağır tarixi missiyanın öhdəsindən gələ bilər.

Görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan bir dövlət kimi zamanın sərt sınaqlarından uğurla çıxa bilmiş, onun müəyyənləşdirdiyi inkişaf strategiyasına uyğun olaraq həyata keçirilən müdrik siyasi tədbirlər sayəsində bu gün Azərbaycan Respublikası dünya dövlətləri birliyində öz layiqli yerini tutmuş, mütərəqqi və beynəlxalq standartlara uyğun islahatlar nəticəsində demokratik, hüquqi və sivil bir dövlət qurulmuş, ölkəmizin iqtisadi müstəqilliyinə nail olunmaqla xalqımızın xoşbəxt gələcəyi üçün bütün təminatlar yaradılmış, qanunun aliliyinə, insan hüquq və azadlıqlarına real təminat verən vətəndaş cəmiyyəti formalaşdırılmışdır.

Hakimiyyət böhranının yaşandığı və ölkədə anarxiyanın tüğyan etdiyi, ölkəmizin vətəndaş müharibəsi astanasında və dövlət müstəqilliyinin itirilməsi təhlükəsi qarşısında qaldığı bir zamanda Azərbaycanda siyasi hakimiyyətə xalqın təkidi ilə qayıdan Heydər Əliyevin müdrikliyi sayəsində müstəqilliyimizin itirilməsi təhlükəsi birdəfəlik aradan qaldırılmış, dövlətçiliyimizin mövcudluğu üçün böyük təhlükə olan dövlət çevrilişi cəhdlərinin və siyasi terror aktlarının, qeyri-konstitusion yolla hakimiyyətə gəlmək iddialarının qarşısı alınmışdır. Atəşkəs əldə edildikdən sonra xalqımızın ən ağrılı yeri olan Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirməklə yanaşı, işğal edilmiş torpaqlarımızı azad etməyə və Azərbaycanın ərazi bütövlüyünü qoruyub saxlamağa qadir olan güclü və nizami Silahlı Qüvvələr formalaşdırılmışdır. Ulu öndərimiz Heydər Əliyevin səyi ilə ordumuzun elmi əsaslarla formalaşması, onun döyüş qabiliyyətinin yüksəldilməsi, torpaqlarımızın müdafiə olunması üçün genişmiqyaslı tədbirlərin həyata keçirilməsi nəticəsində münaqişənin dinc yolla aradan qaldırılması üçün ilkin şərait yaradılmış, torpaqlarımızı işğaldan azad və ölkəmizi düşmənlərdən müdafiə etmək qabiliyyətinə malik ordu quruculuğuna geniş diqqət yetirilmişdir.

Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış ölkəmizin iqtisadi inkişaf konsepsiyasının, neft strategiyasının uğurla həyata keçirilməsinin məntiqi nəticəsidir ki, bu gün Azərbaycanın regionda nüfuzlu geostrateji mövqeyi və beynəlxalq siyasət aləmində rolu əhəmiyyətli dərəcədə yüksəlmiş, ölkəmizin hərtərəfli inkişafı üçün stimul yaradan, günü-gündən xalqımızın maddi rifah halı və həyat səviyyəsini yüksəltməyə imkan verən, daim inkişaf edən və möhkəmlənən çox güclü iqtisadi potensiala malik bir dövlətə çevrilmişdir.

Azərbaycan xalqının demokratik, hüquqi dövlətdə yaşamaq idealının real və dayanıqlı əsaslar üzərində gerçəkləşməsi də çağdaş tariximizin unudulmaz dühası - ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin hakimiyyətə qayıdışından sonra qanunçuluğa, hüquq qaydalarına, ədalətə bağlı olması onun zəngin mənəviyyatından, demokratizmindən rişələnmişdir. Heydər Əliyev gücün siyasətinə qarşı qanunun gücünü qoyaraq "haqlı həmişə güclüdür" prinsipindən çıxış etmiş, hakimiyyətin daim hər bir vətəndaşın maraq və mənafeyini uca tutmasına çalışmışdır.

Ulu öndər Heydər Əliyev 1994-cü ilin oktyabr qiyamı və 1995-ci ilin mart dövlət çevrilişi cəhdləri günlərində gücün siyasətinə qarşı siyasətin gücünü qoyarkən, bütün xalq qısa vaxt ərzində öz liderinin ətrafında

toplaşarkən məhz "haqlı adam güclüdür" düsturu işləyirdi. Ədalətin zəfər çalması uğrunda bütün ömrü boyu çalışan Heydər Əliyev üçün "ədalət" və "dövlət" məfhumları arasında möhkəm bağlılıq var. "Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə" deyən Heydər Əliyev dövlətçi olmağın ilkin şərtini məhz ədalətli olmaqda görürdü.

Ümummilli liderimiz Azərbaycanın perspektiv inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək sivil Qərb dəyərlərinin cəmiyyətdə tam mənimsənilməsinə, demokratik normaların daha möhkəm intişar tapmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatına hər zaman xüsusi diqqət göstərmişdir. Heydər Əliyevin "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında" 9 avqust 1994-cü il tarixli fərmanı ilə cinayətkarlığa qarşı mübarizə tədbirləri daha da gücləndirilmiş, hüquq-mühafizə orqanlarının bu istiqamətdə uzunmüddətli dövr üçün fəaliyyət proqramı müəyyənləşdirilmişdir.

Bu fərmandan sonra ölkədə qanunçuluğun möhkəmləndirilməsi, cinayətkarlığa qarşı səmərəli mübarizə sahəsində prokurorluq orqanlarının fəaliyyətində əsaslı dönüş yarandı. Prokurorluq orqanları dövlətçiliyin qorunmasında, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiə olunmasında tədricən dövlətin əsas dayaqlarından birinə çevrildi.

Heydər Əliyev dahi şəxsiyyət olaraq cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və mənafelərinin etibarlı təminatında görərək bunun üçün bütün zəruri tədbirləri həyata keçirmişdir.

Ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə hakimiyyət böhranı qısa müddətdə aradan qaldırılmış, respublikanın müxtəlif bölgələrindəki qanunsuz silahlı dəstələr, dövlətçiliyə qəsdlər edən cinayətkar ünsürlər zərərsizləşdirilmişdir.

Bütün bunlar Azərbaycanda ardıcıl və sistemli surətdə hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinə başlamaq imkanı vermişdir. Məhz ulu öndərimiz Heydər Əliyevin gərgin əməyi nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ hüquqi baza yaradılmışdır.

Ulu öndərimiz Heydər Əliyev dühasına tükənməz ictimai hörmət və dərin ehtiram təsadüfi deyildir - 34 illik ictimai-siyasi fəaliyyəti dövründə Heydər Əliyev yüksək humanizmi, insanpərvərliyi ilə hər bir ailənin yaxın üzvünə, hamisinə çevrilmişdir. Bu həm də xalqımızın Heydər Əliyevin daxili və xarici siyasət kursunu, həyata keçirdiyi mütərəqqi islahatları dəstəkləməsindən irəli gəlmişdir. Alternativi olmayan bu siyasət təkcə ümummilli deyil, həm də fərdi maraqları özündə ehtiva etmiş, hər bir vətəndaşın maraqlarını uca tutmuşdur. Görkəmli dövlət xadimi çox yaxşı bilirdi ki, insanların fərdi qaydada mənafelərini nəzərə almadan ümumi topluma aid maraqları həyata keçirmək mümkün deyildir. Bu da onun müdrik, ədalətli və insanpərvər rəhbər olmasını bir daha təsdiqləyir. Ümummilli liderimiz vətəndaş cəmiyyəti quruculuğu prosesinin uğurla həyata keçirilməsi üçün fundamental insan və vətəndaş hüquq və azadlıqlarının təminatına maksimum şərait yaratmağın vacibliyini daim diqqət mərkəzində saxlayırdı. Respublikamızda azad və demokratik cəmiyyətin bərqərar olmasını özünün ali prinsiplərindən biri elan etmiş Heydər Əliyev bu məqsədə yönəlmiş çoxşaxəli islahatların həyata keçirilməsini də ən vacib məsələlərdən hesab edirdi.

Ulu öndərimiz Heydər Əliyevin siyasi uzaqgörənliyinin, misli görünməmiş qətiyyətliliyinin, prinsipiallığının və siyasi iradə nümayişinin məntiqi nəticəsi olaraq 1994-cü ildə "Əsrin müqaviləsi"nin əfsanədən reallığa çevrilməsi ölkə iqtisadiyyatının bütün strateji əhəmiyyətli sahələrinin inkişafına güclü təkan verməklə yanaşı, Azərbaycanda hüquqi islahatların daha sürətlə aparılmasına geniş imkanlar açmışdır. Ulu öndərimizin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çəkmişdir. Konstitusiyada hakimiyyət bölgüsü prinsipləri dəqiq əksini tapmış, zamanın tələbi ilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə fundamental hüquqi zəmin yaradılmışdır. Konstitusiyada əksini tapmış strateji məqsədlər, ilk növbədə, hüquq islahatları və insan haqlarının qorunması prinsipinin real həyatda tətbiqini zərurətə çevirmişdir. Əsas Qanunda irqindən, cinsindən, milliyyətindən, dinindən, dilindən, mənşəyindən, əqidəsindən, siyasi və sosial mənsubiyyətindən asılı olmayaraq, hər bir insanın hüquq və azadlıqlarının müdafiəsi qanunvericilik, icra və məhkəmə orqanları qarşısında ümdə vəzifə kimi qoyulmuşdur.

Ulu öndərimizin 1993-cü ildən tətbiqinə moratorium qoyduğu ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk ölkə olmuşdur. O vaxt hətta Avropa Şurasının üzvü olan bir sıra dövlətlər analoji addımı hələ atmamışdılar. 2001-ci ildə müstəqil respublikamız Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edildikdən sonra bu təşkilatla səmərəli əməkdaşlıq milli qanunvericiliyimizin Avropa standartlarına uyğunlaşdırılmasına, mütərəqqi məhkəmə-hüquq islahatlarının aparılmasına əlverişli şərait yaratmışdır.

Ümummilli liderimiz Heydər Əliyevi böyük şəxsiyyət və insan kimi xarakterizə edən ən mühüm keyfiyyətlərdən biri də onun yeritdiyi siyasətin yüksək humanizm və insanpərvərlik prinsiplərinə əsaslanmasıdır. Böyük qəlb və zəngin mənəviyyat sahibi kimi Heydər Əliyev günahkarları cəzalandırmağı da, xeyirxahlıq, humanizm, müdriklik göstərərək bağışlamağı, islah etməyi də bacarırdı. Azərbaycan Prezidenti yanında Əfv Komissiyasının yaradılması və əfvetmə İnstitutunun bərpası da bunun bariz nümunəsi kimi xüsusi vurğulanmalıdır.1995-2003-cü illər ərzində ulu öndərimiz Heydər Əliyev tərəfindən 32 əfv fərmanı imzalanmış, bu fərmanlar 3091 məhkuma şamil edilmişdir. Ulu öndərimizin qanunvericilik təşəbbüsü əsasında Milli Məclis 1996-2001-ci illərdə 8 amnistiya haqqında qanun imzalamış, 31584 məhkum azadlığa buraxılmış və yaxud onların cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılmışdır. Bu addımlar ciddi tərbiyəvi əhəmiyyət daşımaqla, cinayət törətmiş şəxslərin islah olunmasına, ölkədə cinayətkarlığın azalmasına səbəb olmuşdur.

Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində əldə etdiyi ən mühüm nailiyyətlərdən biri də BMT və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandum olmuşdur. Bu memoranduma əsasən, BMT insan hüquqlarını dəstəkləmək və müdafiə etmək sahəsində ümumi biliklərin və potensialın Avropa standartlarına uyğunlaşdırılması, prosedur və hesabatlar sisteminin təkmilləşdirilməsi, mülki cəmiyyətin inkişafı və digər məsələlər sahəsində Azərbaycan Respublikası hökuməti ilə birgə tədbirlər həyata keçirmişdir. 1998-ci ilin 22 fevralında ümummilli liderimiz Heydər Əliyev "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzalamışdır. İnsan hüquqları sahəsində proqram rolunu oynayan bu sənədlə insan hüquqları məsələsi başlıca ümumdövlət vəzifələri səviyyəsinə qaldırılmışdır.

Hüquq-mühafizə orqanlarının müstəqilliyinin təmin edilməsini respublikamızda həyata keçirilən hüquq islahatlarının əsas qayəsi və məqsədi kimi önə çəkən ulu öndərimiz Heydər Əliyev bu vacib vəzifəni uğurla həyata keçirmək məqsədilə 21 fevral 1996-cı il tarixdə Hüquq İslahat Komissiyasının yaradılması barədə sərəncam imzalamışdır. Həmin komissiya tərəfindən hazırlanmış "Konstitusiya məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış tədbirləri haqqında", "Notariat haqqında" və s. qanunların qəbulu məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir.

Ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi altında insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi, məhkəmələrdə dövlət ittihamının daha mütərəqqi prinsiplər əsasında həyata keçirilməsi istiqamətində mühüm addımlardan biri də prokurorluq sistemində çoxşaxəli islahatların aparılması, bu orqanın funksiya və vəzifələrinin mövcud Konstitusiyaya uyğunlaşdırılması olmuşdur.

Azərbaycan Respublikası Prokurorluğunun dövlətçiliyimizin maraqlarına, qanunun aliliyinin və insan və vətəndaş hüquqlarının müdafiəsinə xidmət edən sivil və demokratik bir qurum kimi formalaşması, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunverici, maddi və sosial bazanın yaradılması ölkəmizdə həyata keçirilən möhtəşəm islahatların, o cümlədən, məhkəmə-hüquq islahatlarının memarı - ümummilli liderimiz Heydər Əliyevin böyük qayğı və dəstəyi sayəsində mümkün olmuşdur. Məhz ulu öndərimizin rəhbərliyi altında 1993-cü ildən etibarən hərtərəfli islahatların həyata keçirildiyi bir şəraitdə prokurorluğun bu proseslərdən kənarda qalması, yığılıb qalmış problemlərin həlli istiqamətində səmərəli tədbirlərin görülməməsi məsələyə dövlət başçısı səviyyəsində müdaxilə edilməsi zərurətini yaratmışdı. Müstəqil respublikamızın Ali Qanununda ilk dəfə olaraq ölkəmizin dövlət quruluşu sistemində prokurorluğun layiqli yerinin müəyyənləşdirilməsi, məhkəmə hakimiyyəti sisteminə daxil olan prokurorluq orqanlarının statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələrinin qanunvericilik qaydasında təsbit edilməsi Heydər Əliyevin bilavasitə tapşırıq və göstərişlərinin yerinə yetirilməsi nəticəsində mümkün olmuşdur.

Ulu öndərimiz Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında 7 dekabr 1999-cu il tarixdə "Prokurorluq haqqında" qanunun qəbulu qarşıda duran bu və digər vəzifələrin uğurla həyata keçirilməsinə imkan yaratmış, prokurorluq orqanlarının daha da demokratikləşməsini, onların qanunçuluğun və insan hüquqlarının aliliyinin real təminatçısına çevrilməsini təmin etmişdir.

Cinayətkarlığa qarşı mübarizə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, qanunçuluq, hər kəsin qanun qarşısında bərabərliyi, qərəzsizlik, faktlara əsaslanma, siyasi bitərəflik bu gün prokurorluğun fəaliyyətinin əsas prinsiplərini təşkil edir.

Ümummilli liderimiz Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə hər il oktyabr ayının 1-nin prokurorluq işçilərinin peşə bayramı kimi qeyd edilməsi, tarixi ədalətin bərpa olunması ilə yanaşı, hakimiyyət orqanları sırasında xüsusi yeri olan prokurorluğa dövlət qayğısının ifadəsi, ölkəmizdə prokurorluğun roluna rəsmi münasibətin dövlət səviyyəsində təzahürüdür.

Ulu öndərimiz Heydər Əliyevin prokurorluğun fəaliyyətinə yüksək qiymət verməsi, ölkəmizin müstəqilliyinə, dövlətçiliyinə sədaqətinə görə təşəkkür etməsi hər birimizin üzərinə daha böyük məsuliyyət

qoymuşdur. Bu gün prokurorluq işçiləri üzərlərinə düşən məsuliyyəti, onlara olan yüksək etimadı dövlətçilik ideyalarına sədaqətlə, xidməti vəzifələrinin icrasına daim vicdanlı münasibət bəsləməklə doğrultmağa səy göstərirlər. Prokurorluq orqanlarında aparılan islahatlar, fəaliyyətimizlə bağlı qəbul edilmiş yeni qanunlar və digər qanunvericilik aktları bizi daha fəal və səmərəli çalışmağa, qanunların aliliyinin təmin edilməsi uğrunda daha barışmaz və prinsipial mübarizə aparmağa ruhlandırır. Azərbaycan Respublikası Baş Prokurorluğunun mühüm strukturlarından olan Hərbi Prokurorluq orqanları öz fəaliyyətində daim ulu öndərimizin hüquqi dövlət və vətəndaş quruculuğu ilə bağlı ali ideyalarını rəhbər tutmaqla, qanunvericiliklə müəyyən edilmiş səlahiyyətlərini lazımi səviyyədə həyata keçirməyə, Silahlı Qüvvələrdə və digər hərbi birləşmələrdə qanunçuluğun, nizam-intizamın tam bərqərar olmasına çalışır. Hərbi Prokurorluğun fəaliyyətinin əsas qayəsi Azərbaycan Ordusunda möhkəm intizamın mövcud olmasına tam nail olmaq, hərbi cinayətlərə qarşı mübarizəni daha da gücləndirmək, habelə cinayətkarlığa qarşı preventiv tədbirlər həyata keçirmək, əsgər və zabit heyətinin hüquq və azadlıqlarının etibarlı müdafiəsini təmin etməkdir. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu sahəsində həyata keçirilən kompleks tədbirlərin nəticəsi olaraq ölkədə hərbi cinayətlərin - fərariliyin, hərbi xidmətdən yayınma hallarının və hərbi xidmət əleyhinə olan digər cinayətlərin sayı ildən-ilə azalır.

Heydər Əliyev fenomeni təkcə dünənin fakt və hadisələrini özündə ehtiva etməklə məhdudlaşmır, həm də Azərbaycandakı bu günün inkişaf proseslərini istiqamətləndirən, bu proseslərə təkan verən mühüm siyasi-ideoloji amil kimi çıxış edir. Tarixi təcrübə sübuta yetirir ki, cahanşümul fəaliyyət nəticəsində zamanın mənzərəsini dəyişməyə qabil olmuş böyük dövlət adamlarının xalq, dövlət mənafeyi naminə gördükləri işlərin onların cismani yoxluğundan sonrakı dövrdə də davam etdirilməsi üçün zəruri əsaslar formalaşdırmaları o şəxsiyyətlərin xalqa, dövlətə göstərdikləri bütün xidmətlər qədər önəmlidir.

Rifahı üçün bütün həyatını sərf etdiyi doğma Azərbaycan xalqı ilə vida ərəfəsində insanlar ölkənin gələcək taleyi ilə bağlı həmişə olduğu kimi yenə də məhz Heydər Əliyev sözünün intizarında idilər. Belə bir məqamda ulu öndərin ideyalarını onun cismani yoxluğundan sonra da davam etdirməyə qadir siyasi lideri - cənab İlham Əliyevi böyük əminliklə xalqa təqdim etməsi insanların Azərbaycanın gələcək taleyi ilə bağlı tərəddüdlərini ortadan götürdü. Ümummilli liderin xalqa tarixi müraciətində möhtərəm Prezidentimiz İlham Əliyev haqqında irəli sürdüyü "Mən ona özüm qədər inanıram" əminliyi və xalqın bu əminliyə söykənən yüksək etimadı Azərbaycanın tezliklə qədəm qoyduğu böyük yüksəliş yolunun, yeni bir inkişaf mərhələsinin başlanğıcına çevrilmiş oldu.

Ulu öndərin müəyyən etdiyi inkişaf konsepsiyasını yüksək dinamizmlə həyata keçirən möhtərəm Prezidentimiz İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasətin uğurları sayəsində bu gün Azərbaycanın davamlı tərəqqisi təmin olunmuş, ölkəmizin hərtərəfli inkişafına yönələn bir sıra qətiyyətli addımlar atılmışdır. Azərbaycan dünyanın iqtisadi müstəvisində istehlakçı ölkə statusunu istehsalçı ölkə statusuna dəyişmiş, sosial-iqtisadi inkişaf tempinə görə dünyanın ən öncül dövlətlərindən birinə çevrilmişdir. Möhtərəm Prezidentimizin imzaladığı mühüm dövlət proqramlarının icrası nəticəsində Azərbaycanda bir sıra sosial-iqtisadi problemlər öz həllini tapmış, keçid dövrü uğurla başa çatdırılmışdır. Azərbaycanda özəl sektorun inkişafı, yeni-yeni istehsal-emal müəssisələrinin yaradılması, regionların yüksəlişi, işsizlik, yoxsulluq probleminin həlli, insanların həyat səviyyəsinin yüksəlməsi, ölkənin iqtisadi inkişafından əldə edilən mənfəətin irimiqyaslı infrastruktur layihələrinin icrasına, vətəndaşların sosial müdafiəsinin təşkilinə, cəmiyyət həyatı üçün xüsusi əhəmiyyət kəsb edən ayrı-ayrı sahələrin inkişafına yönəlməsi günümüzün xoş mənzərələridir.

Cənab İlham Əliyevin qətiyyətli addımları sayəsində Azərbaycan bu gün bütün bəşəriyyəti narahat edən enerji təhlükəsizliyi problemini nəinki tamamilə aradan qaldırmış, eyni zamanda özünün zəngin enerji ehtiyatları ilə Avropa regionunun enerji təhlükəsizliyinin başlıca təminatçısına çevrilmişdir. Bütün dünya üçün xüsusi aktuallıq kəsb edən ərzaq təhlükəsizliyi probleminin həlli yönündə də əhəmiyyətli işlər görülmüş, mühüm dövlət proqramları qəbul edilərək onların icrasına başlanmışdır. Enerji və ərzaq təhlükəsizliyi ilə yanaşı, bu gün ölkəmiz üçün vacib olan nəqliyyat təhlükəsizliyinin təmin edilməsi sahəsində də əsaslı tədbirlər həyata keçirilməkdədir.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanın xarici siyasətində qazanılan uğurların sırası cənab İlham Əliyev tərəfindən daha da genişləndirilmiş, geopolitik baxımdan olduqca həssas bölgədə yerləşən ölkəmiz öz mənafelərini balanslaşdırılmış xarici siyasət kursu nəticəsində qoruyaraq regionun ən vacib ölkəsinə çevrilmişdir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi layihələrin gerçəkliyə çevrilməsi, nəinki Cənubi Qafqaz regionunun, ümumilikdə Avropanın gələcək taleyinin xeyli dərəcədə asılı olduğu irimiqyaslı qlobal layihələrdə Azərbaycanın əsas tərəf kimi iştirakı beynəlxalq sferada müstəqil dövlətimizin mövqelərinin daha da gücləndirilməsini, onun xarici investisiyalar üçün açıq və cəlbedici ölkə, etibarlı tərəfdaş imicinin formalaşmasını təmin etmişdir. Azərbaycanın getdikcə artan beynəlxalq nüfuzu

ən ağrılı problemimiz olan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlarda da özünü qabarıq şəkildə hiss etdirməkdədir.

Bu gün ölkəmizdə ən müxtəlif sahələr üzrə davam edən inkişaf prosesləri məntiqi ardıcıllıqla bir-birini tamamlayır. Azərbaycanda güclü ordu qurulur, ölkəmizdə informasiyalı cəmiyyətin formalaşması, əldə edilən iqtisadi mənfəətlərin bu gün qloballaşan dünyanın ən qiymətli sərvəti rolunda çıxış edən insan kapitalına çevrilməsi üçün məqsədyönlü addımlar atılır, informasiya texnologiyalarının son nailiyyətləri daha böyük sürətlə Azərbaycan həyatının ayrılmaz bir hissəsinə çevrilir. Bütün bunlara paralel olaraq ölkədə aparılan demokratik islahatlar getdikcə daha geniş vüsət alır, insan hüquq və azadlıqlarının təminatı sistemi daha da mükəmməlləşdirilir, Azərbaycanda tolerant bir mühitin mövcudluğuna şərait yaradan əsaslar möhkəmləndirilir. Azərbaycanda vətəndaş cəmiyyəti formalaşdırılır, hər bir vətəndaş onunla dövlət arasındakı münasibətlərdə müəyyən edilmiş rol və vəzifələri, mənsub olduğu dövlətin bugününə və gələcəyinə görə daşıdığı məsuliyyəti daha aydın görür, hər addımında buna riayət etməyə çalışır.

Bu gün bütün dünyada sivil cəmiyyətin başlıca göstəriciləri kimi qəbul edilən bu nailiyyətlərin əldə edilməsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri vardır. Yüksək mənəvi-əxlaqi dəyərləri parlaq şəxsiyyətində cəmləyən Mehriban xanımın irəli sürdüyü və cəmiyyət tərəfindən böyük dəstək qazanan ictimai təşəbbüslər təkcə konkret sahələrdə mövcud olan problemlərin həllinə yönəlmir, bu təşəbbüslər çərçivəsində tikilən, bərpa edilən məktəblərin, səhiyyə, mədəniyyət ocaqlarının, həyata qaytarılan xəstə, imkansız insanların, himayəyə götürülən kimsəsiz körpələrin, bütün dünyada təbliğ edilən Azərbaycan mədəniyyətinin işığında həm də dövlət və vətəndaş birliyini təmin edir, müstəqil Azərbaycan Respublikasının əsl vətəndaşlarını yetişdirir.

Bütün bunlar ulu öndərimiz Heydər Əliyevin daim arzusunda olduğu və bu gün gerçəkləşən amallarıdır. Heydər Əliyevin cismən yoxluğu, ideallarından pöhrələnən uğurları özünün həyatda ikən görə bilməməsi qəlbimizi nə qədər göynətsə də, biz bu nailiyyətlərin hər birində ulu öndərin nurlu simasını görürük, onun varlığını hiss edirik. Və bu hiss, Heydər Əliyevin Azərbaycanın bugünündən şad ruhunu bütün qəlbi ilə duyan hər bir insanın daşımalı olduğu əbədi bir vəzifəni müəyyənləşdirir - Heydər Əliyev ideyalarına sadiqlik, bu ideyaları layiqincə həyata keçirən möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı nailiyyətlərə töhfə vermək üçün Azərbaycan Respublikası Hərbi Prokurorluğu bundan sonra da ordumuzun qüdrətlənməsi naminə Silahlı Qüvvələrdə qanunçuluğun möhkəmləndirilməsi istiqamətindəki fəaliyyətini daim artıracaq, insan hüquq və azadlıqlarının pozulmasına, cinayətkarlığa qarşı barışmaz mübariz olmağa, insan amili ilə bağlı hər bir məsələdə həssaslıq göstərməyə çalışacaq, dövlətimizin əbədi yaşaması, səadəti, rifahı naminə üzərinə götürdüyü ali missiyanı Heydər Əliyev ideallarına layiq şəkildə davam etdirəcək, dövlətçiliyimizin daha da möhkəmləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğu prosesində qanunla üzərinə düşən bütün vəzifələrin icrası istiqamətində səmərəli fəaliyyət göstərəcəkdir.

**“Xalq qəzeti”.-**2011.-6 may.-N 97.-S.7.

# HEYDƏR ƏLİYEV AZƏRBAYCAN XALQI ÜÇÜN ÜMUMMİLLİ LİDER, DÜNYA ÜÇÜN ÜMUMBƏŞƏRİ DƏYƏRDİR

## Onun adı və fəaliyyəti Azərbaycan etnocoğrafiyası ilə məhdudlaşmır

**Hikmət BABAOĞLU,**
Əməkdar jurnalist

Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan siyasi sisteminin yaradıcısı, azərbaycançılıq ideologiyasının banisi, Azərbaycanda milli özünüdərk prosesinin başladıcısı və idarəedicisi Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının dövlətçilik tarixində o qədər böyük yeniliklərə, o qədər böyük işlərə imza atıb ki, yuxarıda sadaladığımız titulların heç biri Onun titanik fəaliyyətini tam əhatə etmir. Biz bu gün Azərbaycan tarixində Heydər Əliyev erasını yaratmış Ulu öndər haqqında danışarkən, adətən, Onu bir Ümummilli lider kimi səciyyələndiririk. Əlbəttə, bu, mübahisəsiz olaraq belədir. Amma bu zaman bizə elə gəlir ki, Heydər Əliyevin fəaliyyətini bir qədər məhdudlaşdırmış oluruq. Onun fəaliyyətinə bir qədər sırf milli kontekstdə yanaşmış oluruq. Lakin Heydər Əliyev şəxsiyyəti və Onun fəaliyyəti təkcə Azərbaycanın etnosiyasi coğrafiyası ilə bağlı deyil və Ulu öndərin bir siyasətçi kimi fəaliyyəti də Azərbaycanın etnosiyasi coğrafiyası ilə məhdudlaşmır. O, istər Sovet xalqları müstəvisində və istərsə də Şərqi Avropadan tutmuş, hətta, Afrika ölkələrinə qədər olan xalqların tarixində rol oynamış, onların yaxından tanıdığı və onların həyatına təsir edəcək proseslərə imza atmış bir şəxsiyyətdir. Ona görə də, hesab edirik ki, bu gün Ulu öndəri hörmətlə anarkən Heydər Əliyevşünasların və Heydər Əliyev sevərlərin, tədqiqatçıların araşdırmalı olduğu elmi istiqamətlərdən biri də, məhz, bu olmalıdır.

### Heydər Əliyev azərbaycançılığı haradan və necə başladı...

Biz bu gün Ulu öndərin bu vaxta qədər tədqiqatdan və ümumi kütləvi yanaşmadan kənarda qalan fəaliyyətinin bəzi spektrləri haqqında fikirlərimizi bildirməyə çalışacağıq. Ümumi yanaşma Ulu öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasını məhz Azərbaycanın siyasi rəhbərliyinə gəldikdən sonra başlatdığı yönündədir... Ancaq biz hesab edirik ki, Ulu öndər Heydər Əliyev azərbaycançılıq ideologiyasının əsaslarını, rüşeymlərini hələ Sovet dövründə Azərbaycanın Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərliyi dövründə başlatmışdır. Biz bilirik ki, Dövlət Təhlükəsizlik Komitəsi Sovet dövrünün ideoloji və siyasi əsaslarını formalaşdıran, onu idarə edən və yönləndirən əsas orqan idi. Və təəssüf ki, Sovet Azərbaycanı dövründə Ulu öndər Heydər Əliyevə qədər Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərlik edən azərbaycanlı olmamışdır. Azərbaycan xalqının, Azərbaycan ziyalısının, Azərbaycan dövlətçiliyinin, Azərbaycanın düşünən beyinlərinin başına gələn faciələrin əsas törədicisi və əsas ideyavericisi də, məhz, bu sistemdən doğurdu. Və biz bilirik ki, Sovet quruculuğu prosesində, 1937-ci il repressiyasında, həmçinin, ondan sonrakı dövrlərdə Azərbaycan xalqının ziyalılarına qarşı törətdiyi repressiyanın mərkəzi, məhz, təhlükəsizlik orqanları idi. Bu təhlükəsizlik orqanları sanki Azərbaycanın daxilində Antiazərbaycançı qüvvələrin mərkəzini, konsentrasiyasını təşkil edirdi. Bu yanaşma Ulu öndər Heydər Əliyev milli təhlükəsizlik orqanlarına rəhbərlik edən günə qədər davam etdi. Onun rəhbərliyi dövründə isə respublikanın təhlükəsizlik orqanlarından Antiazərbaycançı qüvvələr, Azərbaycanı sevməyən müxtəlif xalqların nümayəndələri təmizlənməyə başlandı. Və azərbaycançılıq ideologiyasının rüşeymi də, milli özünüdərk prosesinin rüşeymi də elə oradan cücərməyə başladı. Bundan sonrakı mərhələdə Ulu öndər öz fəaliyyətini siyasi sahəyə transfer etdikdən sonra, yəni, 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra artıq bu rüşeym daha bir münbit sferaya düşməklə siyasi populyarlıq qazandı. Beləliklə, artıq 1978-ci ildə Ulu öndərin həyata keçirdiyi fəaliyyət nəticəsində Azərbaycan dili Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili kimi Azərbaycan Konstitusiyasına düşdü. Hesab edirik ki, bu, Ulu öndərin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən biri idi.

### İdeyanın ideologiyaya çevrilməsi və kütləvi mənimsənilməsi

Həmin dövrdə artıq azərbaycançılıq ideyası bir ideya şəklindən, yəni, bir fərdin, bir siyasətçinin, bir öndərin ideyasından ideologiyaya çevrilməyə başladı. Təsadüfi deyil ki, bu ideologiyaya çevrilmə prosesi də, məhz, ideya müəllifi tərəfindən həyata keçirildi. Bundan sonrakı mərhələdə azərbaycançılıq ideologiyasının xalq tərəfindən mənimsənilməsi, dərk olunması prosesi başladı. Bu istiqamətdə atılan ilk addımın ilkin nəticəsi isə, məhz, Bakı şəhərinin azərbaycanlılaşdırılması oldu. Çünki biz bilirik ki, o dövrdə Bakını istənilən yerdə və istənilən şəkildə ümumi universal möhürü beynəlmiləl şəhər möhürü idi. Bu beynəlmiləl şəhər bir kosmopolit

bakılılar anlayışını özündə birləşdirməklə, milli ünsürləri rədd edirdi. Beləliklə, hətta o dövrdə mərkəzi hakimiyyətdə Dərbənd kimi neft mərkəzi olan Bakını da hansısa bir şəkildə federasiyaya bağlamaq, bu mümkün olmayanda isə, heç olmasa Bakının azərbaycanlılarından qorumaq siyasəti həyata keçirilirdi.

**Kosmopolit Bakıdan milli Bakıya doğru**

Məhz bu zəncirləri, yəni, Bakını azərbaycanlılardan ayıran o zəncir halqalarını Ulu öndər qırdı. 1969-cu ildən başlayaraq 1970-ci illərdə böyük dövlət xadimi Heydər Əliyev tərəfindən Azərbaycanın regionlarından, rayonlarından, kəndlərindən azərbaycanlıların məhz Bakı şəhərində məskunlaşdırılması ilə Bakı bir Azərbaycan şəhərinə çevrildi və azərbaycançılığın ilk nəticəsi Bakının azərbaycanlılaşması oldu. Və əlbəttə ki, bu proses həm iqtisadi, həm siyasi, həm milli intellektual müstəvidə baş verirdi. Yəni, regiondan gələn gənclərin işlə, qalacaqla təmin olunması, məskunlaşması prosesi vardır. Həmin dövr Azərbaycanda həm sənaye müəssisələri tikildi, həm yataqxanalar tikildi, həm də yeni qəsəbələr və mikrorayonlar salındı. Beləliklə də, Bakı azərbaycanlaşdırıldı. Biz, sadəcə Ulu öndərin siyasi ideoloji fəaliyyətini təhlil etdiyimiz üçün iqtisadi və sosial məsələlər barəsində çox danışmaq istəmirik.

**Heydər Əliyev erası müxtəlif sosial, iqtisadi və ideoloji qatlardan ibarətdir**

Biz Ulu öndərin fəaliyyətinə, Azərbaycan xalqı qarşısında xidmətlərinə nəzər saldıqda görəcəyik ki, dediyimiz bu era ayrı-ayrı qatlardan və mərhələlərdən ibarətdir. Bu qatların və mərhələlərin hər biri Azərbaycan xalqının tarixində ayrıca səhifədir. Ən əsası odur ki, bu səhifələr Azərbaycan xalqının və dövlətinin inkişafını özündə ehtiva edən, onu stimullaşdıran səhifələrdir. Əlbəttə ki, Ulu öndərin hakimiyyətinin ikinci dövrü Onun SSRİ rəhbərliyinə aparılması ilə bağlıdır. Bu dövrdə də yenə Azərbaycan daima Ulu öndərin diqqətində olmaqla respublikamızın inkişafı başlıca məsələ kimi SSRİ rəhbərliyinin diqqət mərkəzində tutulurdu. Və nəhayət Ulu öndərin sonrakı mərhələdəki fəaliyyəti Onu artıq müstəqil bir dövlətin, müstəqil bir xalqın lideri kimi səciyyələndirməyə imkan verir. Genetik olaraq, liderlik keyfiyyətlərinə və yüksək xarizmaya sahib olan Heydər Əliyev heç kəsin proqnozlaşdıra bilməyəcəyi proseslər baş verərkən, XX əsrin sonlarında bunları proqnozlaşdırmağı, həmçinin, öz yeri və mövqeyini bu proseslərin içində müəyyənləşdirməyi dəqiqliklə bacarırdı. Eyni zamanda, Onun qəbul etdiyi şəxsi qərarlar bir növ Azərbaycan xalqının siyasi qərarlarına çevrilirdi. Ən əsası isə bu qərarlar uzaqgörən və məqsədyönlü, konkret hədəfə doğru istiqamətlənmiş olduğu üçün bizim ümummilli yolumuzu işıqlandıran mayaka çevrildi.

**Azərbaycan xalqının milli özünüdərkinin bərpası və müstəqillik mübarizəmizin uğurla sona çatması üçün Ulu öndər böyük xidmətlər göstərdi**

20 Yanvar faciəsindən sonra Moskvada Azərbaycanın Daimi nümayəndəliyinə gələrək, xalqının ağır günündə onun yanında olduğunu nümayiş etdirən Ulu öndərin bu addımı bütün dünyaya səs saldı. Əslində bu, Azərbaycanın milli dövlətçilik prinsiplərinin elan olunması və hədəflərinin göstərilməsi idi. Əlbəttə ki, Azərbaycan xalqının milli özünüdərkinin bərpası və müstəqillik mübarizəmizin uğurla sona çatması üçün Ulu öndər Heydər Əliyev böyük xidmətlər göstərdi. Baxmayaraq ki, o dövrdə, istər siyasi baxımdan, istər iqtisadi baxımdan, istərsə də mənəvi-psixoloji baxımdan daim məhdudiyyətlər və təzyiqlər altında fəaliyyət göstərirdi. Amma Naxçıvana gələr-gəlməz dərhal Naxçıvan MR Ali Sovetində Azərbaycanın bugünkü bayrağını və eyni zamanda, Azərbaycanın tarixi bayrağını-1918-20-ci illərdə dalğalanmış üçrəngli bayrağımızı, məhz, xüsusi qərarla Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin binası üzərində ucaltdı. Bu addımın özü xalqın milli azadlıq hərəkatına yeni keyfiyyət, yeni ruh və optimizm gətirdi. Hesab edirik ki, bu da tariximizin yaddaqalan, maraqlı və gərəkli səhifələrindəndir.

Ondan sonrakı mərhələdə, əlbəttə ki, Ulu öndərin fəaliyyət sferası daha da genişlənməyə başladı. Azərbaycandan ilk dəfə olaraq imperiya əsgərlərinin çıxarılması və bir xarici dövlətlə sərhədlərin qorunmasının özümüzə qaytarılması da Heydər Əliyev erasında tariximizə yazılan qızıl səhifələrdəndir.

**Müstəqil dövlətimizin tərəqqisi Heydər Əliyevin adı ilə bağlıdır**

Əlbəttə ki, başqa maraqlı bir dövr Azərbaycanda vətəndaş müharibəsinin qarşısının alınması ilə bağlıdır. Bu, olduqca mürəkkəb və təzadlı bir dövr idi. Azərbaycan dövləti parçalanmaq təhlükəsi ilə baş-başa qalmışdı. Həmin dövrə diqqətlə nəzər salsaq görərik ki, Ulu öndər Heydər Əliyev dahi bir dövlət xadimi kimi Azərbaycan dövlətinin və dövlətçiliyinin mənzərəsini çox aydın şəkildə görür və onun struktur formulasını müəyyənləşdirərək nəyin, necə olmasını dəqiq cizgilərlə qura bilirdi. Məhz bunun nəticəsi idi ki, müstəqil Azərbaycan dövləti quruldu. Məhz Ulu öndərin həmin dövrdə həyata keçirdiyi siyasət nəticəsində bu gün Azərbaycan müstəqil dövlət kimi, yəni, formal müstəqil deyil, həqiqi müstəqil dövlət kimi tanınır.

**O, böyük müəllim, mükəmməl natiq, dahi təbliğatçı idi**

Ulu öndərin başqa böyük keyfiyyətlərindən biri də Onun böyük müəllim, dahi təbliğatçı və mükəmməl natiq olmasında idi. Heydər Əliyev "ideya, ideologiya və təbliğat" universal üçlük formulasından çox məharətlə istifadə etməyi bacarırdı. O, ideyanı verir, onu ideologiyaya çevirir və həmin ideologiyanın kütlə tərəfindən mənimsənilməsini təmin edirdi. Elə Azərbaycanı birləşdirəcək universal formula olan azərbaycançılıq ideologiyasının da müəllifi, təbliğatçısı və icraedicisi, məhz, Ulu öndərimiz olub. Əslində, bir xalqın vahid ideologiya ətrafında təşkilatlanması üçün illər keçir. Yəni, hər hansı bir ideologiyanın mənimsənilməsi, öyrənilməsi və xalqın həmin ideologiyanın daşıyıcısına çevrilmə prosesi uzun illər, bəlkə də qərinələr, yüzillər aparır. Amma Ulu öndər özünəxas xüsusi çevik üsul və metodlarla bu prosesi elə etdi ki, qısa müddətdə azərbaycançılıq ideologiyası Azərbaycanın başlıca milli-siyasi ideologiyasına çevrildi. Bir qədər sonra isə bu öz müsbət bəhrəsini verdi. Azərbaycanda bu ideologiyanın bərqərar olması və mənimsənilməsi ilə ölkəmizdə etnik separatçılığa son qoyuldu.

**Heydər Əliyev dövlətin siyasi və ideoloji varisliyini təmin etdi**

Ulu öndər elə böyük dövlət və siyasi xadimlərdən idi ki, dövlətçiliyin siyasi-ideoloji əsaslarını yaratmaqla bərabər, eyni zamanda, onun varisliliyini də təmin etdi. Hər hansı bir dövlətin var olması üçün mütləq ideoloji-siyasi varislik lazımdır. Əgər bu olmasa, dövlət bir nüfuza, liderə, bir fiziki şəxsə bağlı olduqda, o şəxsin fiziki-bioloji mövcudluğu bitdikdən sonra dövlətin də ömrü bitir. Məhz bunu bilən Ulu öndər dövlətçiliyimizin siyasi-ideoloji varisliliyini də təmin etmiş oldu.

Heydər Əliyev üçün biz çoxlu titullar deyə bilərik. Ümummilli lider, Ulu öndər, Azərbaycan Respublikasının siyasi rəhbəri, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü, müstəqil Azərbaycan Respublikasının Prezidenti və s. Bunlar əlbəttə ki, hamısı bir titul, bir vəzifədir. Amma Heydər Əliyev şəxsiyyəti bütün bunların hamısının fövqündə duran bir nümunədir. Yəni, bu bir həqiqətdir ki, bütün bu vəzifələrdən və titullardan Heydər Əliyev Azərbaycan xalqının milli və dövlətçilik maraqlarının təmin olunması üçün istifadə etdi. O, bir millət mücahidi idi, xalq mücahidi idi, Azərbaycan xalqının böyük mücahidi idi, Azərbaycan xalqını beynəlxalq münasibətlərdə böyük arenaya çıxarmağı qarşısına məqsəd qoymuşdu. Azərbaycan həqiqətlərini dünyaya çatdırmağı qarşısına məqsəd qoymuşdu. Müstəqil Azərbaycan dövlətinin əbədi olmasını qarşısına məqsəd qoymuş böyük bir mücahid idi. Prezidentlikdən tutmuş digər titul və vəzifələr isə Onun üçün, məhz, bu məqsədləri həyata keçirmək üçün bir mexanizm və vasitə idi. Ona görə də, Ulu öndər Heydər Əliyev Azərbaycan xalqı tərəfindən daima hörmətlə anılacaq. Xalqımız var olduqca O, da yaşayacaqdır.

**"Yeni Azərbaycan".-**2011.-6 may.-№80.-S.4-5.

# AZƏRBAYCAN NEFT SƏNAYESİNİN MODERNLƏŞMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

**Rövnəq Abdullayev,**
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti,
Milli Məclisin deputatı

Ulu öndər Heydər Əliyev müasir Azərbaycan dövlətinin memarı və qurucusu, çoxəsrlik tarixi ənənələrimiz əsasında bu dövlətin ideoloji-siyasi inkişaf doktrinasını yaradaraq praktik surətdə gerçəkləşdirmiş böyük strateqdir. Sosial-iqtisadi yüksəliş tempinə görə dünyanın aparıcı dövlətləri ilə bir sırada dayanan, beynəlxalq birliyin tamhüquqlu tərkib hissəsinə çevrilmiş Azərbaycan Respublikası Heydər Əliyev dühasının şah əsəridir.

Bu gün güclü, getdikcə daha da qüdrətlənən dövlətimizin qazandığı bütün uğurlar üçün biz dünya şöhrətli siyasi xadim Heydər Əliyevə borcluyuq. Zəngin idarəçilik təcrübəsinə, geniş dünyagörüşünə, çevik siyasi təfəkkürə, misilsiz bilik və bacarığa malik bu fenomenal şəxsiyyət daim Azərbaycan xalqının rifahı naminə yorulmaq bilmədən çalışmışdır. Onun siyasi fəlsəfəsi tarixi varisliyə, müasirləşməyə və inkişafa əsaslanır. Tarixi varislik və müasirləşmə olmadan real inkişafı mümkünsüz hesab edən Heydər Əliyev milli soykökünə, keçmişinə nə qədər dərindən bağlı olsa da, daim nəzərlərini gələcəyə yönəltmiş, xalqımızı həmişə irəli aparmış, zamanla ayaqlaşmağa səsləmişdir. Məhz bu xüsusiyyətlərinə görə Ulu öndər Heydər Əliyev tarix yaradan nadir şəxsiyyətlərdən biridir. Unikal tarixi şəxsiyyətlərə xas olan siyasi bəsirətlə keçmişlə gələcəyi ayrı-ayrılıqda yox, harmonik vəhdət şəklində görə bildiyi üçün respublikamıza rəhbərlik etdiyi bütün dövrlərdə o, ölkənin sosial-iqtisadi inkişaf prioritetlərini dəqiq şəkildə müəyyənləşdirmiş, dünyanın ümumi inkişaf kontekstindən kənarlaşmaları vaxtında hiss etmiş, bununla heç cür barışmamış, Azərbaycanın qlobal müstəviyə qayıtmasına nail olmuşdur. Heydər Əliyev cəmiyyətə həmişə mütərəqqi ideyalar aşılamışdır. Onun iqtisadi siyasətinin ana xəttini müasirləşmə təşkil etmişdir. Heydər Əliyev sənayenin inkişafını, bu sahədə mövcud olan intellektual potensialın gücləndirilməsini Azərbaycanın yüksəlişi üçün başlıca amillər hesab edir və yanılmırdı. O bilirdi ki, güclü iqtisadiyyat hər bir ölkənin dünya miqyasında əlverişli geosiyasi mövqelərə sahib olması üçün əsas şərtdir. Hələ ötən əsrin 60-cı illərindən dünyanın qloballaşmağa doğru inkişaf etdiyini müəyyənləşdirən Ulu öndər mümkün inkişaf tendensiyalarını dərindən araşdırmış, ümumi koordinatlar sistemində Azərbaycanın yerini və perspektiv hərəkət vektorunu özünəməxsus ustalıqla cızmışdı. O, müasir dünyanın geosiyasi mənzərəsinə təsir göstərən ən başlıca amillərdən birinin enerji resurslarına nəzarətlə, neft-qaz ehtiyatlarının dünya bazarlarına və əsas istehlakçılara vaxtı-vaxtında və təhlükəsiz çatdırılması ilə sıx bağlılığını nəzərə alaraq Azərbaycan neft sənayesinin müasirləşməsi xəttini irəli sürmüşdür. Bu xətt artıq yarım əsrə yaxındır ki, dönmədən davam etdirilir və Azərbaycana böyük uğurlar qazandırır.

Azərbaycanda neft hasilatı qədim və zəngin tarixə malikdir. Eramızdan min illər qabaq burada ibtidai üsullarla neft çıxarıldığı və karvan yolları ilə müxtəlif ölkələrə daşındığı faktlarla sübut olunur. Neftin sənaye üsulu ilə hasil edilməsinin, emalının, tankerlərlə, dəmir yolu ilə, boru kəmərləri ilə nəql edilməsinin, sahildə, açıq dənizdə və dənizin dərinsulu hissələrində neft yataqlarının kəşf və istismar olunmasının əsası Azərbaycanda qoyulmuşdur. Bakı neftçiləri həmişə neftin, qazın kəşfiyyatı, hasilatı, emalı və nəqli sahələrində çoxsaylı ideyaların generatoru olaraq tanınmış, misilsiz fədakarlıqlar göstərərək, ən mütərəqqi yenilikləri istehsalatda tətbiq etmişlər. Buna görə də Bakı uzun müddət dünyanın neft akademiyası hesab edilmişdir. Lakin, məlumdur ki, Sovet dövründə, xüsusilə İkinci Dünya müharibəsi ərəfəsində və ondan sonrakı illərdə Azərbaycanın neft sənayesi texniki və texnoloji inkişaf parametrləri üzrə birinciliyini əldən vermiş, get-gedə dünyanın neft hasil edən digər ölkələri ilə müqayisədə geriləmişdi. 1969-cu ildə birinci dəfə respublikamızın rəhbərliyinə gələn Ulu öndər Heydər Əliyev milli iqtisadiyyatda tarixən həlledici rol oynamış neft sənayesinin əvvəlki şöhrətini özünə qaytarmaq, mövcud təbii və intellektual potensialdan səmərəli istifadə etməklə bu sahənin dinamik inkişafına nail olmaq vəzifəsini qarşıya qoydu. Neft sənayesinin innovasiyalar üçün münbit

zəmin olduğunu yaxşı bilən Heydər Əliyev özünəməxsus böyük uzaqgörənlik nümayiş etdirərək, Ümumittifaq neft sənayesinin konseptual inkişaf perspektivlərini təmin edən bir çox təsisatları - elmi-tədqiqat institutlarını, istehsalat birliklərini, mühüm strateji müəssisələri Bakıda cəmləşdirdi. Məqsəd neft sənayesində elmtutumlu müasir sahələrin inkişafına təkan verməkdən, aktual və prioritet istiqamətləri müəyyənləşdirməkdən, keçmiş SSRİ-nin elmi-texniki fikrini bu istiqamətlərə yönəltməklə son nəticədə bütün mümkün vasitələr hesabına Azərbaycan neft təsərrüfatının modernizasiyasını həyata keçirməkdən və respublikamızı yenidən iri neft mərkəzlərindən birinə çevirməkdən ibarət idi. Dünya neft sənayesinin gələcək inkişaf yolunun məhz dənizdə neftçıxarma ilə bağlı olacağını irəlicədən görən Ulu öndərin rəhbərliyi ilə bu istiqamətdə genişmiqyaslı fəaliyyətə başlanıldı. Məlum olduğu kimi, 1970-ci ilə qədər Xəzər dənizində istifadə olunan texniki vasitələr dənizin cəmi 40 metrədək dərinliyində işləməyə imkan verirdi. Xəzərin Azərbaycan sektorunda bu dərinliklərdə olan perspektiv strukturlar isə, demək olar ki, bütünlüklə kəşf olunmuşdu. Buna görə əvvəlcə dənizin 70 metr dərinliyində kəşfiyyat-axtarış işləri aparmağa imkan verən "Xəzər" tipli üzən qazma qurğuları alındı. Görülən tədbirlər tezliklə "Bahar" və "Bulla-dəniz" yataqlarının açılması ilə nəticələndi. Xalqımızın ümummilli lideri az sonra qarşıya dənizin 200 metr və daha çox dərinliyində işləmək vəzifəsi qoydu və böyük siyasi qətiyyət, iradə bahasına bu məqsədinə də nail oldu. 1970-1980-ci illərdə "Şelf" tipli o dövr üçün ən müasir yarımdalma üzən qazma qurğularının respublikaya gətirilməsi dərinsulu sahələrdə zəngin neft və qaz yataqlarının kəşf olunmasına imkan yaratdı. 80-ci illərdə bu qurğuların sayı artıq 11-ə çatmışdı. "Şelf" tipli qurğular Azərbaycana uzun müddət xidmət etdi və müstəqillik dövründə "Dədə Qorqud", "İstiqlal" kimi daha modern qurğuların yaranması üçün təməl rolunu oynadı.

Dənizin dərinsulu hissələrində mürəkkəb neft-qaz əməliyyatlarının həyata keçirilməsi məqsədi ilə görülən kompleks tədbirlər öz təyinatına görə unikal səciyyə daşıyan Xəzər Dəniz Neft Donanmasının da yeniləşməsinə şərait yaratdı. Donanmanın parkı üçün müasir tipli "Süleyman Vəzirov", "İsrafil Hüseynov" kimi borudüzən gəmilər, 2500 ton yük qaldıra bilən "Azərbaycan" kran gəmisi, geofiziki kəşfiyyat gəmiləri və başqa texniki üzən vasitələr sifariş verildi və qısa müddətdə tikilib gətirilərək, fəaliyyətə başladı. 80-ci illərdə Donanmanın balansında 75 növdə ümumilikdə 400-dən çox gəmi var idi.

Ulu öndər Heydər Əliyevin Azərbaycan neft sənayesinin müasirləşdirilməsi istiqamətində göstərdiyi xidmətlərdən danışarkən Dərin Dəniz Özülləri Zavodunun inşası xüsusi qeyd olunmalıdır. Bir-birinin ardınca kəşf olunan dəniz yataqlarında platformaların tikilməsi üçün nəzərdə tutulan və o dövrdə dünyada analoqu olmayan zavodun Bakıda yaradılmasına icazə alınması (əvvəlcə Həştərxanda tikilməsi nəzərdə tutulmuşdu), bu məqsədlə Sovet İttifaqının büdcəsindən böyük məbləğdə vəsaitin ayrılması, 1978-ci ildə əsası qoyulan sənaye nəhənginin 1984-cü ildə istismara verilməsi Heydər Əliyevin siyasi müdrikliyinin, onun təşəbbüskarlıq və prinsipiallığının nəticəsində mümkün olmuşdu. Təsadüfi deyil ki, Ulu öndərin adını ləyaqətlə daşıyan bu zavod indi də müstəqil dövlətimizin iqtisadi qüdrətinin möhkəmlənməsinə xidmət edir. Azərbaycanda həyata keçirilən qlobal siqlətli enerji layihələrinin gerçəkləşməsində Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun rolu danılmazdır.

Dənizdə neftçıxarmanın davamlı artımına hesablanmış bütün bu infrastrukturun yaradılması və səmərəli istifadə olunması öz bəhrələrini çox tezliklə verməyə başladı. Xəzər dənizinin Azərbaycan sektorunda dənizin 80-350 metr dərinliklərində zəngin karbohidrogen ehtiyatlarına malik "Günəşli" (1979), "Çıraq" (1985), "Azəri" (1987), "Kəpəz" (1989) yataqları kəşf olundu. Azərbaycanın neft ehtiyatları 2 dəfə, qaz ehtiyatları isə 3 dəfə artırıldı. Neft və qaz hasilatında dönüş yarandı, hasilatın azalma tempi 2 dəfəyə yaxın aşağı endirildi. Mədənlərin yarıdan çoxu avtomatlaşdırıldı. İnfrastruktur yeniləndi və kadr resursları baxımından milliləşdirildi. 70-ci illərdə layihə gücü ildə 15 mln. ton xam nefti qəbul etməyə və 5 mln. ton neft məhsulunu gəmilərə doldurmağa imkan verən Dübəndi dəniz terminalının tikintisi başa çatdırıldı. Respublikanın digər yerlərində də iri tutumlu neft terminalları tikilib istismara verildi. Həmin dövrdən Azərbaycan neftçiləri dənizin bütün sektorlarında axtarış-kəşfiyyat işləri aparmağa başladılar. Xəzər akvatoriyasında geofiziklərimiz tərəfindən 350-yə qədər perspektivli struktur aşkar edildi.

Neft emalı və neft kimyasının inkişafı da bu illərdə Heydər Əliyevin diqqət mərkəzində idi. Azərbaycan KP MK-nın oktyabr (1976-cı il) plenumundakı məruzəsində o, neftayırma zavodlarının yenidən qurulmasını "ən

mühüm problem" adlandırmışdı. Ulu öndər bu məsələni keçmiş İttifaqın ən yüksək hakimiyyət instansiyalarında qaldırmış, emal zavodlarının köklü şəkildə yenidən qurulması üçün ali partiya qərarları əsasında böyük vəsait ayrılmasına nail olmuşdu. Bu gün müstəqil Azərbaycanın neft emalı və neft kimyası kompleksində aparıcı yer tutan bütün dominant qurğular məhz həmin dövrdə inşa edilmişdir. 1976-cı ildə "ELOU-AVT-6", 1980-ci ildə yüksək oktanlı benzin istehsal edən "Katalitik Riforminq", , 1986-cı ildə "Neftin kokslaşdırılması", 1993-cü ildə "Katalitik krekinq" qurğuları tikilib istismara buraxıldı, 1981-ci ildə EP-300, 1982-ci ildə isə "Polimer-120" qurğusunun təməli qoyuldu. O da qeyd olunmalıdır ki, neft emalında nail olunan keyfiyyət dəyişiklikləri sənayenin və ictimai həyatın digər sahələrində də inkişafa güclü təkan verirdi. Neftayırma zavodlarının artan istehsal güclərindən səmərəli istifadə etmək məqsədi ilə Rusiya və Qazaxıstandan böyük miqdarda xam neft idxalına başlanılmış, yükdaşımaların həcmi artmışdı. 1983-cü ildə Ulu öndərin təşəbbüsü əsasında Sibir neftinin Bakı zavodlarına nəql edilməsi məqsədi ilə İttifaq əhəmiyyətli Qroznı-Bakı neft kəmərinin istifadəyə verilməsi respublika ərazisində ətraf mühitə, o cümlədən, Xəzər dənizinin ekologiyasına mənfi təsirlərin nəzərəçarpacaq dərəcədə azalmasına səbəb olmuşdu.

Beləliklə, ötən əsrin 70-80-ci illərində xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə neft sənayesinin müasirləşdirilməsi istiqamətində atılan addımlar umumilikdə respublika iqtisadiyyatının güclənməsi üçün möhkəm zəmin yaratmışdı. O dövrdən keçən müddət ərzində ölkəmizdə cərəyan etmiş hadisələrin təhlili əsasında biz bu gün aydın dərk edə bilirik ki, Ulu öndərin Azərbaycanı keçmiş SSRİ-də neft sənayesi üzrə aparıcı respublikaya çevirmək istiqamətində apardığı gərgin və məqsədyönlü iş strateji əhəmiyyət daşıyırdı. O, çox gözəl bilirdi ki, neft sənayesinin texniki cəhətdən müasirləşməsi istiqamətində görülmüş tədbirlər gələcəkdə suveren Azərbaycanın iqtisadi müstəqilliyinin əsasını təşkil edəcəkdir. Bu inamın reallığa söykəndiyini tarix də təsdiq etmişdir.

Azərbaycan Respublikasının ötən əsrin 90-cı illərindən başlayan müstəqillik yolu mürəkkəb siyasi dövrə təsadüf edirdi. Bir tərəfdən arası kəsilməyən xarici təzyiqlər, digər tərəfdən daxili siyasi xaos, özbaşınalıq, hakimiyyət çəkişmələri, işğalçı Ermənistanın ölkəmizə təcavüzü Azərbaycan iqtisadiyyatını iflic vəziyyətinə salmışdı. Xalq təsərrüfatındakı ümumi durğunluq neft-qaz sənayesindən də yan keçməmişdi. Bütün yanacaq-enerji sektoru tənəzzülə uğramış, məhsuldarlıq son dərəcə aşağı düşmüşdü. Geoloji-geofiziki axtarışlar demək olar ki, aparılmır, avadanlıqlar dəyişilmir, yeni quyular qazılmırdı. Neft hasilatı 1987-ci ildəki 14 milyon 349 min ton səviyyəsindən 1994-cü ildə 9,6 milyon tona enmişdi.

Dövlətçiliyimizin müqəddəratının həll edildiyi o ağır dövrdə ümummilli lider Heydər Əliyevin xalqın istək və təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışı ölkəni vətəndaş müharibəsi girdabına düşməkdən, iqtisadiyyatı uçuruma yuvarlanmaqdan xilas etdi. Ulu öndər Heydər Əliyev ölkəni üzləşdiyi dərin böhrandan çıxarmaq məqsədilə həllivacib tədbirləri müəyyənləşdirərkən yenə də başlıca olaraq neft sənayesinə istinad etdi. Onun gərgin səyləri nəticəsində 1993-cü ildən başlayaraq Azərbaycanın neft sənayesində tənəzzülün qarşısının alınması üçün mühüm tədbirlər görüldü. Əlbəttə, zəngin təbii resurslar, 70-80-ci illərdə və daha əvvəllər yaradılmış texniki-iqtisadi və intellektual potensial bunun üçün əsas verirdi. Lakin qarşıda dayanan ümdə vəzifə sadəcə olaraq tənəzzülü dayandırmaqdan ibarət deyildi. Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq və möhkəmləndirmək, ölkədə uzunmüddətli iqtisadi-siyasi sabitlik yaratmaq üçün qarşıda sovet dövründə kəşf edilmiş neft-qaz yataqlarının mənimsənilməsi, hasil olunacaq məhsulun dünya bazarlarına çıxarılması kimi aktual məsələlər dururdu. Mövcud siyasi-iqtisadi durum, məhdud maliyyə imkanları isə bu cür kardinal dəyişikliklərin öhdəsindən gəlməyi mümkünsüz edirdi. Vəziyyəti düzgün və hərtərəfli qiymətləndirən Heydər Əliyev çıxış yolunu nüfuzlu Qərb şirkətləri ilə milli maraqlara söykənən əməkdaşlığın qurulmasında gördü. Bu, dövrün böhranlı sosial-iqtisadi şərtləri daxilində müstəsna siyasi cəsarət və ardıcıl gərgin əmək tələb edən, lakin ümummilli mənafelər baxımından ən uyğun konseptual yanaşma idi. Xalqımızın əbədi lideri dahiyanə yeni neft strategiyasını işləyib hazırladı və bütün çətinliklərə sinə gərərək, 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə bu qalibiyyətli strategiyanın icrasına start verildi. Strategiyanın mahiyyətini xarici sərmayələrin köməyi ilə neft-qaz sənayesini müasirləşdirmək, bu sektordan əldə ediləcək gəlirləri iqtisadiyyatın digər sahələrinə yönəltmək və ümumi iqtisadi-siyasi dirçəlişə nail olmaq məqsədləri təşkil edirdi. Siyasi səciyyəsi

etibarı ilə Azərbaycanın dövlət müstəqilliyinin iqtisadi qarantı olan yeni neft strategiyası - bütövlükdə ölkənin modernləşmə və davamlı inkişaf doktrinası idi.

Ulu öndər Heydər Əliyev strategiyanın əsas hədəflərini nəzərdə tutaraq demişdir: "Ölkə iqtisadiyyatını inkişaf etdirmək üçün biz xarici ölkələrlə, dünyanın tanınmış şirkətləri ilə sıx əməkdaşlıq etməyi, müştərək iş görməyi əsas prioritet hesab edirik. Dünya iqtisadiyyatının inteqrasiyası, iqtisadi sahədə ölkələrin bir-biri ilə əməkdaşlığı hər bir dövlət üçün mənfəətdir və bu, yüksəlmək, müasirləşmək üçün yeganə yoldur." Bu strategiyanın gerçəkləşməsi həqiqətən də Azərbaycan Respublikasının, ölkə iqtisadiyyatının, xüsusilə neft sənayesinin yeni inkişaf mərhələsinə qədəm qoymasına, müasirləşməsinə güclü təkan vermişdir. İlk növbədə qeyd olunmalıdır ki, ölkə üzrə neft və qaz hasilatı sahəsində tarixdə görünməmiş yüksəliş qeydə alınmışdır. Geoloji və geofiziki tədqiqatlarda, qaz və neft yataqlarının ehtiyatlarının dəqiqləşdirilməsində yeni üsullar, mükəmməl maili qazmanın köməyi ilə lay boyu horizontal qazma metodu, neftvermə əmsalının artırılması kimi yeniliklərin tətbiqi nəticəsində Azərbaycanın neft ehtiyatları 2 milyard tona, qaz ehtiyatları isə 2,2 trilyon kubmetrə qədər artırılmışdır. Ölkə üzrə neft hasilatı ilbəil artaraq 2010-cu ildə 51 milyon tona, qaz hasilatı isə 27 milyard kubmetrə çatmışdır. "Əsrin müqaviləsi"nin imzalandığı tarixdən 2010-cu ilədək Azərbaycanın neft-qaz sektoruna xarici şirkətlər tərəfindən 37 milyard ABŞ dolları həcmində sərmayə qoyulmuşdur. Respublikanın enerji müstəqilliyi tam təmin olunmuş, Azərbaycan təbii qaz idxal edən ölkədən regionda və bütün dünyada mühüm qaz ixracatçısı kimi tanınan bir ölkəyə çevrilmişdir. Qısa müddət ərzində Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri tikilib istismara verilmiş, şaxələndirilmiş etibarlı ixrac neft-qaz kəmərləri sistemi yaradılmışdır. Səngəçalda inşa edilmiş terminal dünyanın bu qəbildən olan ən böyük müəssisələrindən biridir. Xəzər dənizinin dərin hissələrində yerləşən kəşfiyyat bloklarında qazma işlərini sürətləndirmək üçün tikilməsinə, yenidən qurulmasına və müasirləşdirilməsinə 700 milyon ABŞ dollarından artıq sərmayə qoyulmuş 4 nəhəng dəniz qazma qurğusunun- "Dədə Qorqud", "İstiqlal", "Qurtuluş" və "Lider"in (Xəzərdəki bu ən əzəmətli qurğu hazırda Ulu öndər Heydər Əliyevin adını daşıyır) əldə olunması da neft sənayemizin şəksiz uğurlarından hesab edilməlidir.

Ulu öndərin siyasi kursunun ən layiqli davamçısı, Azərbaycan Respublikasının möhtərəm Prezidenti İlham Əliyev cənablarının rəhbərliyi altında uğurla davam etdirilən yeni neft strategiyası ölkə iqtisadiyyatının flaqmanı olan Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin inkişaf edərək böyüməsinə, genişlənməsinə, beynəlxalq standartlara uyğunlaşmaqla modern bir şirkətə çevrilməsinə zəmin yaratmışdır. "Azəri-Çıraq-Günəşli", "Şahdəniz", BTC, Cənubi Qafqaz ixrac qaz kəməri kimi irimiqyaslı layihələrin həyata keçirilməsində nüfuzlu beynəlxalq şirkətlərlə tərəfdaşlıqdan əldə etdiyi zəngin müasir təcrübə və yeni texnologiyalar şirkətin inkişafında keyfiyyətcə yeni mərhələyə yüksəlməsinin əsası olmuşdur. Müstəqillik dövründə ilk dəfə olaraq daxili qüvvələr hesabına Xəzər dənizindəki "Ümid" strukturunda aparılmış kəşfiyyat-qazma işlərinin uğurla nəticələnməsi, burada böyük ehtiyatlara malik yeni bir yatağın açılması deyilənlərin parlaq nümunəsidir. Şirkət karbohidrogenlərin axtarışı, hasilatı, nəqli, emalı, marketinqi, satışı, habelə neft-kimya məhsullarının istehsalı ilə məşğul olan çoxsahəli, inteqrasiya edilmiş struktura malikdir. ARDNŞ-nin aktivində terminallar, neft və qaz kəmərləri, hidrotexniki obyektlərin tikintisi və təmiri üzrə ixtisaslaşmış inşaat müəssisələri, elmi tədqiqat institutları və s. mövcuddur. Bu zəngin infrastrukturun müasirləşdirilməsi istiqamətində kompleks tədbirlər fasiləsiz olaraq davam etdirilir. 60 ildir Xəzər dənizi hövzəsində unikallığını qoruyub saxlayan Neft Donanmasının onlarla gəmisi, o cümlədən, 1200 ton yükgötürmə qabiliyyətinə malik nəhəng "Qurban Abbasov" kran-montaj gəmisi rekonstruksiya olunaraq istismara buraxılmışdır. Qaradağ və Qalmazdakı yeraltı qaz anbarlarının aktiv tutumu 3 milyard kubmetrə qədər genişləndirilmiş, habelə Hacıqabul, Siyəzən və Astara qaz-kompressor stansiyalarının gücü əhəmiyyətli dərəcədə artırılmışdır. Bu gün Şirkətin neft emalı kompleksində "Avro-2" standartlarına uyğun yanacaq məhsulları istehsal olunur, "Avro-3" standartlarına keçidlə bağlı zəruri tədbirlər görülür.

Hazırda respublikamızın neft sektorunda həyata keçirilən istisnasız olaraq bütün birgə layihələrdə Azərbaycan dövlətini layiqincə təmsil edən ARDNŞ həm də beynəlxalq arenada göstərdiyi inamlı fəaliyyəti ilə dərin etimad qazanmışdır. İndi ölkə daxilində Şirkətin təsisçiliyi ilə yaradılmış 13 Əməliyyat Şirkəti, 34 Birgə Müəssisə, 5 Alyans neft və qaz sənayesinin, demək olar, bütün sahələrində uğurla çalışır. Qarşılıqlı faydalı

əməkdaşlıq çərçivəsində ötən il Azərbaycan Respublikasının möhtərəm Prezidenti İlham Əliyev cənablarının iştirakı ilə Bakıda ildə 25 min ton metal istehsal edə biləcək yeni gəmiqayırma zavodunun təməli qoyulmuşdur. Dövlətimizin başçısı bu münasibətlə demişdir: "Bundan sonra Azərbaycanın tələbatını ödəyə biləcək bütün növ gəmilər ölkəmizdə istehsal olunacaqdır. Eyni zamanda, ixrac potensialımızın gücləndirilməsi üçün də zavodun böyük əhəmiyyəti olacaqdır". Müasir dövrdə fəaliyyət sferasının qloballaşması neft-qaz şirkətlərinin başlıca xüsusiyyətlərindən sayılır. Hazırda dünyanın neft-qaz bazarı o qədər qloballaşmışdır ki, bir ölkənin hüdudları çərçivəsində qapanıb qalmaqla bu bazarda müvəffəqiyyət qazanmaq mümkün deyildir. Ölkə Prezidentinin çevik, müasir və rəqabətə davamlı bir quruma çevrilmək tapşırığını əldə rəhbər tutan ARDNŞ xarici ölkələrdə investisiya proqramları həyata keçirir, cəlbedici layihələr icra edir, inamlı addımlar atır. Xaricdəki fəaliyyətinin səmərəli təşkili məqsədi ilə Şirkətin 10-dan artıq ölkədə nümayəndəlikləri təsis edilmişdir. Bu qurumlar beynəlxalq layihələrin hazırlanması və icra olunmasında ARDNŞ-ni təmsil edir. Qısa müddətdə ciddi nailiyyətlər qazanılmışdır. Şirkətin Gürcüstandakı aktivi olan Kulevi Qara Dəniz Terminalı ildə 10 milyon ton xam neftin, dizel yanacağının və mazutun qəbulu, saxlanılması və gəmilərə yüklənməsi imkanına malikdir. Ən müasir avadanlıqla təchiz olunmuş bu müəssisə haqlı olaraq qonşu ölkənin ən yaxşı infrastruktura malik neft terminalı sayılır. Ötən ilin mayından Qazaxıstanın "Tengiz" yatağında hasil olunan neftin də bir hissəsi dünya bazarlarına Kulevi terminalından nəql edilir. "SOCAR Georgia Petroleum" və "SOCAR Georgia Gas" şirkətləri Gürcüstanda neft məhsulları və təbii qaz distribusiyası bazarının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Bu bazarda möhkəm qərarlaşmış ARDNŞ törəmə müəssisələri vasitəsilə Gürcüstan iqtisadiyyatının inkişafına dəyərli töhfələr verir, respublikanın qazlaşdırılması prosesində aparıcı rol oynayır. Hazırda qonşu ölkədə "SOCAR" brendi ilə 64 yanacaqdoldurma stansiyası işləyir, ölkənin onlarla qazpaylayıcı şəbəkəsi ARDNŞ tərəfindən idarə olunur.

Şirkətin Türkiyədəki layihələri də uğurla davam edir. "SOCAR-Turgas" Birgə Müəssisəsinin İzmirin Əliağa bölgəsində illik gücü 10 milyon ton olan Ege neft emalı zavodunun tikintisi üçün lisenziya alması xüsusi qeyd olunmalıdır. ARDNŞ-nin idarəçiliyində olan "Petkim Petrokimya Holdinq"inin nəzdində inşa olunacaq bu zavodun məhsulları əsasən, bu kompleksin xammal ehtiyaclarının ödənilməsinə sərf olunacaq, Aralıq dənizi və Cənubi Avropa bazarlarına ixrac ediləcəkdir. "Petkim" Türkiyənin ən iri neft-kimya şirkətidir və ARDNŞ tərəfindən idarə olunur. Şirkət əlavə sərmayə qoyuluşu hesabına tezliklə "Petkim"in Türkiyə neft-kimya məhsulları bazarında malik olduğu payın 40%-ə qaldırılmasını nəzərdə tutur. Kompleksdə modern tipli konteyner terminalı və elektrik stansiyasının inşası, nəticədə illik neft-kimya istehsalının 6 milyon tonadək yüksəldilməsi planlaşdırılır.

Dövlətimizin müdrik rəhbəri İlham Əliyev cənabları Azərbaycan neft sənayesinin daha işıqlı gələcəyinə inamını vurğulayaraq demişdir: "Mən əminəm ki, bu gün dünyanın aparıcı enerji şirkətləri sırasına daxil olmuş Azərbaycan Dövlət Neft Şirkəti gələcəkdə də öz imkanlarını genişləndirəcək, ölkəmiz üçün lazım olan yeni layihələri uğurla icra edəcəkdir". Bu inam neftçilərimizi daha böyük qələbələrə ruhlandırır. Qədim tarixə, şərəfli ənənələrə malik neft sənayesi əməkçiləri bundan sonra da Ulu öndər Heydər Əliyev tərəfindən irəli sürülmüş davamlı müasirləşmə və yeniləşmə kursuna sədaqətlə daha böyük zirvələrə doğru inamla irəliləyəcəkdir.

**“İki sahil”.-**2011.-7 may.-№81.-S.6-8.

# AZƏRBAYCANI BEYNƏLXALQ HÜQUQUN MÜSTƏQİL SUBYEKTİNƏ ÇEVİRƏN LİDER

**Siyavuş NOVRUZOV,**
Milli Məclisin İntizam komissiyasının sədri,
YAP İdarə Heyətinin üzvü

**XXI əsr tarixə sivilizasiyanı keyfiyyətcə yeni bir mərhələyə yüksəldən qloballaşma əsri kimi daxil olmuşdur. İnkişaf səviyyələrində, din və mədəniyyətlərində, tarixi ənənələrində mövcud olan fərqlərə baxmayaraq, qlobal proseslər dünya ölkələrinin və xalqlarının bir-birindən qarşılıqlı asılılığını getdikcə artırır. Bu proseslər xalqların və bütövlükdə sivilizasiyanın taleyini həlledici dərəcədə müəyyən etməyə başlamışdır. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyevin uğurla davam etdirdiyi daxili və xarici siyasət bugünkü qlobal reallığın və fundamental tendensiyaların mükəmməl dərkinə əsaslanır və hazırkı planetar miqyaslı konyuktur dəyişikliklərə tamamilə cavab verir.**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin bununla bağlı aşağıdakı fikirləri xüsusilə diqqət cəlb edir: "Qloballaşma suveren dövlətlər arasındakı sədləri dağıdaraq cəmiyyətin daxilində sosial münasibətləri yeni məcraya salır, milli özünəməxsusluğu xüsusi dünyagörüşü çərçivələrinə salaraq sərt şəkildə məhdudlaşdırır... Beləliklə, yeni minilliyin əvvəlində qloballaşma dünya təfəkkürünün və tərəqqinin yeni, öncül istiqamətinə çevrilmişdir. Hesab edilir ki, ümumiyyətlə, XXI əsr qloballaşma əlaməti altında keçəcəkdir.

Qloballaşmanın milli məkanlara təsiri prosesində dövlətin daxili siyasi inkişafı böyük əhəmiyyət kəsb edir. İnteqrasiya proseslərinin təsiri yeni qavrayış, təfəkkür tərzi formalaşdırır, sonra isə yeni dövrün bu komponentlərinə həyat verir. Davranışın yeni stereotipləri və formaları meydana gəlir. Demokratik dövlət kimi Azərbaycan hüquqi və demokratik əsasları möhkəmləndirmək istiqamətində irəliləyir".

Qoballaşmaya müxtəlif yanaşmalar mövcuddur. Bu prosesə neqativ yanaşan bəzi alimlər belə hesab edirlər ki, o, milli mədəniyyəti məhv edir, dövlətin müstəqilliyini inkar edir, cəmiyyətə yad istehsal standartlarını zorla yeridir və s. Bəziləri isə qloballaşmanı sivilizasiyaların toqquşması və müharibəsi kimi qəbul edirlər. Bir sözlə, qloballaşmaya münasibət bütün dünyanı qlobalistlərə və antiqlobalistlərə ayırır. Bu gün qloballaşma dünyadakı siyasi proseslərə, beynəlxalq münasibətlərə, hətta etika və mənəviyyata təsir etsə də, bu prosesin xalqlara tam olaraq nə verə biləcəyi sirr olaraq qalır.

İndi bütün dünyanı ağuşuna almış qloballaşmanın bir-biri ilə əlaqəli olan 3 əsas formasını qeyd edirlər: iqtisadi, siyasi və mədəni. Qloballaşmanın özündə ehtiva etdiyi ideoloji mahiyyət əsasən iqtisadi qloballaşmanı ön plana çəkir. İqtisadi qloballaşma milli iqtisadi sistemlərin vahid bir iqtisadi sistem halında birləşməsi, onların qarşılıqlı asılı vəziyyətə gəlməsi və bununla da ölkələr arasındakı bütün iqtisadi münasibətlərin liberallaşmasıdır. Belə bir fikir mövcuddur ki, milli dövlətlər arasında hər cür maliyyə, iqtisadi və informasiya sərhədləri götürülməli, azad iqtisadiyyat və ticarət, azad rəqabət, maksimum sərbəstlik üçün münbit şərait yaradılmalıdır. Qloballaşmanın həqiqi mahiyyəti əslində elə bundan ibarətdir. O, iqtisadi inteqrasiya ideyalarının həyata keçirilməsinin yeni və daha da təkmilləşdirilmiş formasını müəyyənləşdirir. Lakin hətta ən çox inkişaf etmiş dövlətlərin özündə belə qloballaşmadan ehtiyatlananların, bu ideyanın millətlərin özünəməxsus tarixi nailiyyətlərini, milli və mənəvi dəyərlərini məhv edəcəyini düşünənlərin olmasına baxmayaraq, qloballaşmanın əsas üstünlüklərindən biri də məhz elə bundan ibarətdir ki, o dünyəvi inteqrasiyanı hər bir xalqın milli maraqları kontekstində təsəvvür etməyə imkan verir.

İqtisadi qloballaşmanın iki əsas komponenti var: qlobal bazarın yaranması və istehsalın qloballaşması. Qlobal bazar tarixən bir-birindən ayrı olan milli bazarların bir yerə cəmləşdiyi nəhəng çətirdir. Qlobal bazarın ən əsas və diqqəti cəlb edən xüsusiyyətlərindən biri budur ki, daxili bazarda bir-birinə rəqib olan TMŞ-lər həm artıq vahid dünya bazarı uğrunda rəqabət aparır, həm də yerli bazara daxil olan xarici rəqiblərə qarşı çıxırlar.

İstehsalın qloballaşması istehsalın xərc və keyfiyyət üstünlüklərindən yararlanmaq üçün müəssisələrin öz məhsullarını müxtəlif ölkələrdə istehsal etməsidir. Başqa sözlə, parçaları ayrı-ayrı ölkələrdən mənbələnən vahid məhsulun yaranmasıdır.

Siyasi və mədəni-mənəvi proseslərdə özünü göstərən dərin qloballaşma təmayülü iqtisadi qloballaşmada daha böyük sıçrayışla gedir və digər prosesləri də arxasınca aparır. Təsadüfi deyil ki, artıq siyasət getdikcə daha çox iqtisadiləşmişdir. İqtisadi qloballaşma dərin mahiyyətə malik sosial-iqtisadi hadisədir, prosesdir ki, bütün milli iqtisadiyyatları əhatə edir, onları bir-birinə bağlayır, birini digərindən asılı edir və buna görə də milli iqtisadiyyatlar arasında qarşılıqlı asılılıq və qarşılıqlı təsir mexanizmi formalaşır. İqtisadi qloballaşmanın

nəticəsi özünün maddi-texniki əsası, yeni məzmunlu münasibətlər sistemi, təsərrüfat mexanizmi və idarəetmə formaları olan qlobal iqtisadiyyatın yaranmasıdır. Belə bir yeni məzmunlu dünya iqtisadiyyatı beynəlxalq əmək bölgüsünün inkişafı, istehsalın beynəlxalq kooperasiyası, xarici ticarətin genişlənməsi, bütövlükdə beynəlxalq iqtisadi əlaqələrin dərinləşməsi və başlıca olaraq da məhsuldar qüvvələrin beynəlmiləlləşməsi sayəsində mümkün ola bilər.

Qlobal iqtisadiyyat beynəlxalq əmək bölgüsü sistemində özünün yeri olan, qarşılıqlı əlaqə və qarşılıqlı asılılıqda fəaliyyət göstərən milli iqtisadiyyatlardan yaranmış dünya iqtisadiyyatıdır. Onun beynəlxalq əmək bölgüsünün tələblərinə uyğun strukturu, vahid dünya bazarı, vahid təsərrüfat mexanizmi, idarəetmə sistemi və qanunları olmalıdır. İqtisadi qloballaşma belə bir yeni keyfiyyətli iqtisadi sistemin formalaşmasına xidmət edir.

İqtisadi qloballaşma hər bir xalqın, milli dövlətin müstəqil yaşayıb mövcud olmasına bilavasitə təsir göstərir. Onun müsbət cəhətlərindən bəhrələnmək və mənfi nəticələrinin təsirini azaltmaq üçün iqtisadi qloballaşma hərtərəfli öyrənilməli və düzgün strateji xətt müəyyən edilməlidir.

Postsovet məkanında müstəqillik əldə etmiş ölkələrin siyasi, sosial-iqtisadi və mədəni-mənəvi inkişaf problemləri, xarici iqtisadi əlaqələri, onların dünya bazarına inteqrasiyası ilə iqtisadi inkişaf mexanizmi arasındakı qarşılıqlı əlaqə və asılılıq qloballaşma dövründə xüsusi aktuallıq kəsb edir.

Bu ölkələrdə iqtisadiyyatın modernləşdirilməsi vəzifələrindən biri də sovet dövründə uzun müddət qapalı şəraitdə mövcud olmuş təsərrüfatın texnoloji və struktur cəhətdən yenidən qurulmasıdır. Bu proses isə iqtisadiyyatın o sahələrinin üstün inkişafını nəzərdə tutur ki, həmin sahələr öz məhsullarını daxili və xarici bazarlarda müvəffəqiyyətlə sata bilirlər. Beynəlxalq əmtəə, maliyyə və işçi qüvvəsi axınlarının şərtlərini müəyyən edən qlobal maliyyə-iqtisadi mühitə inteqrasiya imkan verir ki, qüvvələr istehsalın uduşlu sahələrinə yönəldilsin, zəif iqtisadi səmərə verən məhsul istehsalından imtina edilsin və investisiyanın strukturunu dəyişdirməklə səmərəli inkişaf modeli seçilsin. Ölkənin seçdiyi yol beynəlxalq əmək bölgüsünün üstünlükləri ilə uzlaşdırılmadıqda isə həmin ölkədə istehsal özünün aşağı səmərəliliyi və zəif inkişaf sürəti ilə xarakterizə edilir.

İqtisadi qloballaşma kapitalın hərəkətini sürətləndirən və yeni ideyaların tətbiqini təmin edən vahid qlobal maliyyə və informasiya məkanının formalaşması və inkişafı prosesidir. Görkəmli iqtisadçı Manuel Kastels qlobal iqtisadiyyatı bütün planet miqyasında real zaman rejimində işləmək qabiliyyəti olan vahid iqtisadi sistem kimi xarakterizə etmişdir. Manuel Kastelsə görə, dünya iqtisadiyyatının qloballaşması anlayışı dünya təsərrüfatının inteqrasiyası anlayışından daha genişdir.

XX əsrin sonunda iqtisadi qloballaşmanın və liberal fundamentalizmin əsaslarını yaradan "Vaşinqton konsensusu" dünya təsərrüfatına güclü təsir göstərmişdir. Dünya iqtisadi siyasəti layihəsi Beynəlxalq Valyuta Fondu və digər beynəlxalq maliyyə institutları tərəfindən qeyri-qərb dövlətlərinə münasibətdə reallaşdırılmış və "Vaşinqton konsensusu" adını almışdır. "Vaşinqton konsensusu"nu yaradarkən ABŞ Maliyyə Nazirliyinin, Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının rəhbərləri dünya ticarətinin yolu üzərində duran gömrük və digər baryerlərin aradan qaldırılması haqqında razılığa gəlmişlər. "Vaşinqton konsensusu"na əsasən iqtisadiyyatda islahatların aparılması üçün bir sıra təkliflər işlənib hazırlanmışdır. Lakin "Vaşinqton konsensusu" qlobal iqtisadiyyatın böhranı ilə başa çatdı. Onun da başlanğıcı 1997-ci ildə baş vermiş Asiya maliyyə böhranı olmuşdur. Beynəlxalq Valyuta Fondunun səhv təklifləri əsasında əvvəlcə Şərqi Asiya, Latın Amerikası və Şərqi Avropa iqtisadiyyatı çox böyük ziyan çəkdi. Bu isə ABŞ-ın geosiyasi və geoiqtisadi maraqlarına uyğun idi. Çox az müddət keçdikdən sonra maliyyə böhranı dalğası Amerika iqtisadiyyatına da təsir etdi. Şərqi Avropanın bir çox iqtisadçıları "Vaşinqton konsensusu" modelinin tətbiqinin əleyhinə çıxdılar. Çünki həmin model dövləti iqtisadiyyatdan ayırmışdır.

Hazırkı zamanda iqtisadi qloballaşma tərəfdarları hər il Ümumdünya Davos Forumunda görüşürlər. Görüşlərdə işgüzar dairələrin və siyasi elitanın nümayəndələri iştirak edirlər. Elə buna görə də çox vaxt qlobalistləri "Davos adamları" adlandırırlar. Bundan başqa, işgüzar Avropa elitası üçün Zaltsburq Forumu təşkil edilir. Bu forumların keçirilməsi çox vaxt antiqlobalistlərin kütləvi etirazları ilə müşahidə olunur.

Faktlar göstərir ki, iqtisadi qloballaşma prosesi mədəni və yaxud siyası qloballaşmadan daha sürətlə gedir. Real görünən odur ki, qloballaşma dünyanı vahid bir iqtisadi məkan kimi nəzərdə tutur, amma onun mahiyyəti yalnız iqtisadi bütövləşmə ilə məhdudlaşmır. Qloballaşma həm də hərbi-siyasi, sosial-mədəni, elmi-texniki bütövləşməni şərtləndirən tarixi bir faktora çevrilmişdir. Ona görə də belə hesab etmək olar ki, qloballaşmanın növbəti mərhələsində siyasi qloballaşma ön plana çıxacaqdır. Həm iqtisadi, həm də siyasi qloballaşma isə mənəvi-mədəni dəyərlərin də ciddi təsirə məruz qalmasına səbəb olacaq. Qloballaşma yalnız bütün müxtəlifliyi ilə bəşər nəslinə mənsubluğumuza əsaslanan ümumi gələcəyin formalaşdırılması sahəsində irimiqyaslı və təkidli səylərimizin nəticəsində tam, hərtərəfli və ədalətli xarakterə malik ola bilər.

Ötən minilliklər ərzində bəşər sivilizasiyasının ayrılmaz hissəsi kimi azərbaycanlılar dünya mədəniyyəti xəzinəsinə çox sanballı töhfələr verərək, özünəməxsus zəngin mədəni-mənəvi irs yaratmışlar. Ümummilli lider Heydər Əliyev bununla bağlı demişdir: "Biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır".

Bu gün dünyaya uğurla inteqrasiya edən, beynəlxalq birliyin ayrılmaz hissəsinə çevrilən ölkəmiz qloballaşmadan, həmçinin cəmiyyət həyatında gedən modernləşmə prosesindən, bəşəriyyətin magistral inkişaf yolundan kənarda qala bilməz.

Şübhəsiz, bəşəriyyətin sürətli inkişaf "karvan"ından geri qalmamaq həyati əhəmiyyətli məsələdir və indiki zamanda bunun alternativi yoxdur. Lakin bu, xalqımızın əsrlər boyu qoruyub saxladığı milli-mənəvi dəyərlərini itirmək hesabına olmamalıdır. Vaxtilə ümummilli lider Heydər Əliyev "Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti"ndə bu narahatlığı belə ifadə etmişdir: "Dünya inkişafının indiki mərhələsinin başlıca meyilləri mədəni inteqrasiya və qloballaşmadır. Əgər bəşəriyyət XX əsri elmi inkişafın nailliyyətlərinin yaratdığı xoş ümidlərlə qarşılamışdısa, qloballaşma prosesi çox vaxt heç də nikbinlik doğurmur. Bu mürəkkəb və birmənalı qiymətləndirilməyən prosesin perspektivləri, bir çox ölkələr üçün yaratdığı problemlər bizi də düşündürür".

Əsrin son onilliyində SSRİ-nin dağılması ilə dünyanın yeni siyasi xəritəsində özünə layiqli yer tutmuş müstəqil Azərbaycan dünya birliyinin bərabərhüquqlu üzvü olmuşdur. Kəskin mübarizə şəraitində əldə edilmiş siyasi müstəqillik ölkənin sovet dövründə 70 il ərzində yığılıb qalmış ciddi siyasi, iqtisadi və sosial problemlərinin həlli yolunda geniş perspektivlər açmışdır. Sovet "dəmir pərdələri" ilə uzun illər boyu dünya birliyindən siyasi və iqtisadi cəhətdən təcrid olunmuş Azərbaycanda açıq cəmiyyət yaradılması, dünya dövlətləri ilə bərabərhüquqlu hərtərəfli əlaqələrin inkişaf etdirilməsi ölkəmizdə mövcud olan sosial-iqtisadi problemlərin həlli yolunda, sözün əsl mənasında, açar rolunu oynayır. Özünün üçrəngli bayrağında əksini tapmış müasirləşmə ideyası, istəyi bir ideya və istək kimi qalmayıb həm də gələcəyə doğru böyük bir hərəkatın rəmzidir, Azərbaycan cəmiyyətinin mühüm fərqləndirici xüsusiyyətlərindən biridir. Bu hərəkat Azərbaycanın ictimai inkişafının bütün istiqamətlərində bariz şəkildə görünməkdədir. Ümumdünya İqtisadi Forumunun 1995-ci ildə Londonda təşkil etdiyi "Azərbaycan: investisiya imkanları" adlı Beynəlxalq sərgi və konfransda ümummilli lider Heydər Əliyev demişdir: "Bizim strateji kursumuz dünya iqtisadi birliyi ilə sıx inteqrasiya edən, bazar iqtisadiyyatına əsaslanan, müstəqil, demokratik hüquqi dövlət qurmaqdır. Buna uyğun olaraq biz artıq konkret nəticələr vermiş olan genişmiqyaslı siyasi və iqtisadi islahatlar həyata keçiririk".

Azərbaycan bir çox həyati əhəmiyyət kəsb edən siyasi və iqtisadi məsələlər baxımından dünyanın yaxın və uzaq, böyük və kiçik dövlətlərinin, beynəlxalq və regional təşkilatların diqqətini özünə cəlb edən məkandır. İki qitənin qovşağında və mühüm strateji əhəmiyyətli ərazidə yerləşən respublikamızda dünyanın nəhəng dövlətlərinin mənafeləri toqquşur, onlar arasında nüfuz dairəsi uğrunda rəqabət gedir və Azərbaycanın təbii coğrafi mövqeyi, zəngin təbii ehtiyatları, potensial imkanları və milli maraqları onun dünyada gedən proseslərdə, o cümlədən iqtisadi qloballaşmada iştirakını zəruri edir.

İqtisadiyyat inkişafın təməl daşıdır. Regionun lider dövləti olan Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş, dinamik inkişaf edən ölkə kimi tanınır. Yüksək iqtisadi göstəricilərə malik olan Azərbaycanın son illər müxtəlif sferalarda əldə etdiyi nailiyyətlər ardıcıl şəkildə bir-birini tamamlayır, coğrafiyasını genişləndirir. Ötən 5 ildə Azərbaycanın dinamik inkişafını təmin edən əsas amillərdən biri də neftdən əldə olunan vəsaitin regionların davamlı və tarazlı inkişafına yönəldilməsi, qeyri-neft sektorunun inkişafı istiqamətində görülən işlərdir.

Ölkədə rəqabətqabiliyyətli iqtisadi sistemin formalaşdırılması və davamlı inkişafın təmin edilməsi baxımından müasir tələblərə cavab verən kadrlara tələbatın ödənilməsi, Azərbaycan gənclərinin ümumbəşəri dəyərlər əsasında təhsil almaları üçün lazımi şəraitin yaradılması, istedadlı gənclərin dünyanın aparıcı ölkələrində təhsil almaq imkanlarının genişləndirilməsi istiqamətində mühüm addımlar atılır və bu sahəyə ayrılan dövlət investisiya xərcləri ildən-ilə artır. Prezident İlham Əliyev respublikanın sosial-iqtisadi inkişafı ilə paralel aparılan demokratikləşmə proseslərini Azərbaycanın gələcək yüksəlişinin əsası hesab edir və onun təkmilləşdirilməsinə mühüm əhəmiyyət verir.

Azərbaycan Prezidentinin qlobal düşüncələri və milli dəyərləri əsas tutaraq nümayiş etdirdiyi yüksək vətənpərvərliyi, təşəbbüskarlığı, fenomenal intellekti, müasir Avropa və dünya siyasətinin qloballaşma prosesinin incəliklərinə dərindən bələd olması ölkə daxilində və xaricində ona böyük inam və etimadın güclənməsini təmin edir. Cənab İlham Əliyev bununla bağlı demişdir: "Azərbaycanın daxili və xarici siyasəti yalnız regional deyil, qlobal miqyasda situasiyaya əhəmiyyətli təsir göstərir və gələcəkdə də göstərəcəkdir".

Beləliklə, qloballaşma Azərbaycan Respublikasının da qarşısında çox böyük perspektivlər açır. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi", "Bakı-Tbilisi-Ceyhan" neft və "Bakı-Tbilisi-Ərzurum" qaz kəmərlərinin reallaşdırılması, "Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi istiqamətində atılmış uğurlu addımlar, tarixi İpək yolunun bərpasında ölkəmizin iştirakı Azərbaycanın dünya iqtisadi məkanına inteqrasiyasının artıq real həyat hadisəsi kimi təzahür etməsinin əyani göstəricisinə çevrilmişdir. Qloballaşma həm də cəmiyyətin və ayrı-ayrı fərdlərin qarşısında duran başlıca məqsəd və vəzifələri müəyyənləşdirir. Bu məqsədlərə çatmaq üçün cəmiyyətin bütün daxili ehtiyatlarını səfərbər etmək çox zəruridir - hər bir vətəndaş başa düşməlidir ki, dövlətin həyata keçirdiyi islahatların son nəticəsi onun da öz vəzifələrini səylə və yüksək peşəkarlıqla yerinə yetirməyə hazır olmasından, eləcə də vətəndaş kimi mövqeyini bildirməsindən asılıdır.

Dünya maliyyə böhranı qloballaşma və ölkələrin qarşılıqlı maliyyə asılılığı şəraitində inkişaf etmişdir. Bütün ölkələr qlobal maliyyə böhranının aqibətini bu və ya digər dərəcədə özlərində hiss etmişlər. Azərbaycan iqtisadiyyatının qlobal iqtisadiyyata açıq olması və inteqrasiyası onda dünya maliyyə böhranının əks olunmasına səbəb oldu. Lakin bu təsir çox zəif xarakter daşıdı.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan iqtisadiyyatı böhranın acısını birdən-birə hiss etmədi. İnkişaf etmiş ölkələrdə böhranın var gücü ilə özünü göstərdiyi 2007-ci ildə və 2008-ci ilin birinci yarısında Azərbaycanda iqtisadiyyatın sabit artımının yüksək tempi qeydə alındı. "2004-2008-ci illərdə regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nın reallaşması həmin dövrdə müvəffəqiyyətlə başa çatdı. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2008-ci ildə Azərbaycanın ÜDM-i 10,8 faiz, əhalinin hər bir nəfərinə düşən gəlirlər 36,2 faiz, AMB-nin valyuta ehtiyatları 52,8 faiz və ya 2121,7 milyon manat artmış, Dövlət Neft Fondunun aktivlərini nəzərə alsaq, ölkənin strateji valyuta ehtiyatları 16 milyard manatı ötmüşdür. 2007-2008-ci illər ərzində iqtisadiyyatın real sektorunun kreditləşməsində artım müşahidə olunmuşdur. 2007-ci illə müqayisədə 2008-ci ildə investisiya 34,3 faiz artmışdır. 2007-ci ilə nisbətən 2008-ci ildə ixracın 8 dəfədən çox və idxalın 29,7 faiz yüksəlişi Azərbaycanda iqtisadiyyat artımını real faktlar əsasında nümayiş etdirir. Kənd təsərrüfatı məhsullarının rekord yığımı qeydə alınmışdır. 2008-ci ildə Dünya Bankı biznesin aparılması proqramında Azərbaycanı lider dövlət kimi qeyd etdi.

Azərbaycan qlobal iqtisadi böhrandan ən az zərər çəkmiş ölkələrdən biridir. Bütün bunlar ölkə hökuməti tərəfindən vaxtında və elmi əsaslarla həyata keçirilmiş və Mərkəzi Bank tərəfindən ətraflı düşünülmüş tədbirlər nəticəsində əldə edilmişdir. Bunların nəticəsində dünya böhranı şəraitində Azərbaycanın dövlət strukturları üç əsas məsələni uğurla həll edə bildilər: birincisi - milli valyuta öz sabitliyini saxlaya bildi və manatın devalvasiyasının qarşısı alındı, ikincisi - neftin satışından daxilolmaların azalmasına baxmayaraq, 2009-cu ilin yanvar-noyabr ayları üzrə dövlət büdcəsində 1026,9 milyon manat profisit müşahidə olundu, üçüncüsü isə - Azərbaycan bankları özlərini qoruyub saxlaya bildilər və heç bir bank müflisləşmədi. Bu faktlar dövlətin maliyyə-büdcə siyasətini müsbət qiymətləndirməyə imkan verir. Onu da qeyd etmək lazımdır ki, Azərbaycandan heç də az olmayan neft ehtiyatlarına malik Rusiya və Qazaxıstan kimi ölkələr sadalanan məsələlərdən heç birini yerinə yetirməmişdilər.

Qlobal maliyyə böhranının təsirini azaltmaq üçün bir sıra tədbirlər görülmüşdür. Azərbaycanın Mərkəzi Bankı yerli banklar tərəfindən xarici borcalmalara vaxtında məhdudiyyət qoydu, həmçinin məcburi ehtiyat normaları və cəlb olunan borcların həcmi üzrə müəyyən normativlər tətbiq olundu. AMB kapitallaşmaya və kredit portfelinin keyfiyyətinə qarşı tələbatı sərtləşdirdi. İqtisadiyyatı və sosial sahəni pul-kredit vəsaitləri ilə təmin etmək məqsədilə 2009-cu ilin mayında uçot dərəcəsi 2 faizə kimi endirildi. Müxtəlif modellər vasitəsilə bazarın stimullaşması həyata keçirildi, bu da onu göstərdi ki, manatın kursunun 1 faiz enməsi inflyasiyanın 0,6 faiz artmasına gətirir. MB manatın kursunun sabit saxlanılmasını vacib hesab etdi və onun saxlanmasına 1 milyard dollar vəsait yönəltdi. Nəticədə dünyada baş verən proseslər fonunda milli manat ABŞ dollarına nisbətdə cəmi 0,3 faiz ucuzlaşdı. Bütün bu tədbirlər dünya bazarlarındakı resessiya zamanı bank sektorunun dayanıqlığını təmin etməyə imkan verdi.

Depozitlərin azalması tendensiyasına mənfi təsirin aradan qaldırılması üçün stimullaşdırıcı tədbirlər görülmüşdür: əhalinin manat əmanəti üzrə orta faiz dərəcələri illik 12,92, valyuta əmanəti üzrə isə illik 12,45 faizə qədər artırılmışdır. Hüquqi şəxslər üçün bu göstəricilər müvafiq olaraq - 8,41 və 4,94 faiz təşkil etmişdir. 2009-cu il oktyabrın 27-də "Fiziki şəxslərin banklarda və digər kredit təşkilatlarındakı əmanətləri üzrə faiz gəlirlərinin gəlir vergisindən azad olunması haqqında" qanun qəbul edildi. Qəbul olunmuş qanunun dövlət büdcəsinə təxminən 60 milyon manata başa gələcəyinə baxmayaraq, bank sisteminə himayədar olmaq məqsədilə dövlət bu addımı atdı. Nəticədə ölkə banklarında əhalinin əmanətləri sürətlə artdı. Beləliklə, əgər 2009-cu ilin yanvar ayından oktyabr ayına kimi əhalinin banklardakı əmanəti 221,9 milyon manat artmışdısa, təkcə həmin ilin noyabr ayında bu artım 126 milyon manat təşkil etmişdir.

Böhran dövründə sahibkarlığa yardım məqsədilə 2009-cu ildə Sahibkarlığa Kömək Milli Fondu 130 milyon manat güzəştli kredit vermişdir ki, bu da 2008-ci ildəkindən 48 faiz çoxdur, kredit alanların sayı isə İqtisadi İnkişaf Nazirliyinin göstəricilərinə əsasən 2,6 dəfə artmışdır.

Bütün bunlara əsasən deyə bilərik ki, görülmüş tədbirlər dünya iqtisadi böhranının Azərbaycana mənfi təsirini mümkün qədər azaltmağa imkan verdi. "İnternational Living" jurnalında dərc olunmuş hesabatda Azərbaycana 42 reytinq balı verilib. Bu göstəricilərə əsasən, bizim ölkə MDB ölkələri arasında ən güclü iqtisadiyyata malik ölkə kimi çıxış edərək Avropanın Slovakiya, Yunanıstan, Malta, Portuqaliya kimi inkişaf etmiş ölkələrini geridə qoyur.

2010-cu ilin sosial-iqtisadi uğurları da ölkəmizin qlobal böhranı uğurla dəf etdiyi, düşünülmüş və məqsədyönlü iqtisadi kurs müəyyənləşdirdiyini aydın şəkildə təsdiq edir. Belə ki, ötən il Azərbaycan iqtisadiyyatının təqribən

5, əhalinin pul gəlirlərinin 12 faiz artması, inflyasiyanın cəmi 5,7 faiz təşkil etməsi deyilənlərə əyani misaldır. 2010-cu ildə Azərbaycanda strateji əhəmiyyətli sosial-iqtisadi layihələrin icrası davam etdirilib, bununla bağlı ölkəyə 15 milyard dollar həcmində sərmayə qoyulub. Ölkəmizin valyuta ehtiyatları 2010-cu ildə əhəmiyyətli dərəcədə artaraq, 20 milyard dollardan 29 milyard dollara çatıb. Əgər 2006-cı ilin dövlət büdcəsində investisiya layihələrinin maliyyələşdirilməsinə 600 milyon manat ayrılmışdısa, 2007-ci ildə bu rəqəm 1,5 milyard, 2008-ci ildə 4,3 milyard, 2009-cu ildə 5,6 milyard, 2010-cu ildə 4,1 milyard manat təşkil edib. 2011-ci ildə bu məqsədlə 3 milyard 380 milyon manatın ayrılması da dövlət büdcəsinin investisiyayönümlü olduğunu göstərir.

Beləliklə, bu faktlar bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi altında inkişafın Azərbaycan modeli tarixi sınaqlardan uğurla çıxmaqda və ölkəmizin gələcək inkişaf perspektivləri baxımından qarşıda yeni imkanlar açmaqdadır.

“**Azərbaycan**”.-2011.-7 may.-N 98.-S.8.

# HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT STRATEGİYASI VƏ AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİYİ

**Ziyafət ƏSGƏROV,**
Milli Məclis Sədrinin birinci müavini,
YAP Siyasi Şurasının üzvü

**Ötən əsrin sonlarında dünyada bir sıra dəyişikliklərin baş verməsi nəticəsində Şərqlə Qərb arasındakı qarşıdurma və gərginlik tədricən aradan qalxdı və beləliklə "soyuq müharibə" başa çatmış oldu. Həmin proseslərin nəticəsi olaraq bir sıra Şərqi Avropa ölkələri öz dövlət müstəqilliklərini əldə etdilər. Bunun ardınca ötən əsrin 90-cı illərinin əvvəllərində SSRİ kimi böyük bir imperiyanın dağılması nəticəsində yeni müstəqil dövlətlərin yaranması prosesi başladı. Belə müstəqil dövlətlərdən biri də 1991-ci ilin oktyabr ayının 18-də öz dövlət müstəqilliyini qazanmış Azərbaycan Respublikası oldu. Dövlət müstəqilliyinin elan olunmasından sonra qısa bir zaman müddətində dünyanın bir çox dövlətləri Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı. Yeni yaranmış müstəqil dövlət kimi Azərbaycan Respublikası bir çox beynəlxalq və regional təşkilatlara daxil olaraq həmin təşkilatlarla və eyni zamanda dünyanın bir sıra dövlətləri ilə diplomatik əlaqə və münasibətlər yaratmağa başlamışdır.**

Çox təəssüflər olsun ki, dövlət müstəqilliyinin ilk illərində qısa bir zaman kəsiyində bir-birini əvəz edən məlum hakimiyyətlərin səriştəsiz və naşı siyasətləri nəticəsində ölkəmiz dünyada və regionda təcrid vəziyyətinə düşdü. Hətta iş o yerə çatdı ki, bəzi yaxın və uzaq ölkələrlə Azərbaycan arasında qarşıdurma vəziyyətinə gətirib çıxara biləcək ziddiyyətlər meydana gəldi.

1993-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəlməsi nəticəsində ölkə həyatının başqa sahələrində olduğu kimi xarici siyasət sahəsində də əhəmiyyətli dəyişikliklər baş verdi. Həmin dövrdə yenicə dövlət müstəqilliyini əldə etmiş gənc dövlətin milli maraqlara uyğun və elmi cəhətdən əsaslandırılmış xarici siyasət kursunun işlənib hazırlanmasına və praktik olaraq həyata keçirilməsinə çox böyük ehtiyac vardı. Çox çətin və mürəkkəb dövrdə və əhatədə olan Azərbaycan dövlətinin xarici siyasət kursunu böyük dövlətçilik təcrübəsi olan, dünyada baş verən siyasi hadisə və proseslərə dərindən bələd olan Heydər Əliyev işləyib hazırlaya bilərdi. Heydər Əliyevin qeyri-adi əzmkarlığı, iradəsi və zəkası sayəsində ölkənin daxilində baş verən vətəndaş müharibəsi və hakimiyyət çevrilişləri cəhdlərinin qarşısı alındı. Ölkənin daxilində davamlı sabitliyin və vətəndaş həmrəyliyinin əldə olunması kimi çətin və mürəkkəb vəzifələr də öz həllini tapmış oldu. Bütün bu hadisə və proseslərin düzgün istiqamətə yönəldilməsi Ermənistanın Azərbaycanın ərazisinə hərbi təcavüzü və təcavüzün qarşısının alınması fonunda baş verirdi. Həmin dövrdə Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və işğalın nəticələrinin dünya ictimaiyyətinə çatdırılması və Azərbaycanın haqlı tələblərinin yerinə yetirilməsi ölkəmizin xarici siyasət kursunda əsas yerlərdən birini tutmuşdu.

Dünyada və regionda baş verən siyasi hadisə və prosesləri dərindən və hərtərəfli təhlil edərək, ulu öndər Heydər Əliyev ilk növbədə Azərbaycanın beynəlxalq təşkilatlarda təmsil olunmasına nail oldu. Həmin dövrdə Heydər Əliyev beynəlxalq təşkilatların tribunalarından çox bacarıqla istifadə edərək, Ermənistanın Azərbaycana təcavüzünün nəticələri və ölkəmiz haqqında obyektiv məlumatları dünyaya çatdırmağa çalışırdı. Ulu öndər bütün xarici səfərlərində keçirdiyi görüşlər zamanı ölkəmizin tarixi, mədəniyyəti, təbii sərvətləri, geosiyasi mövqeyi haqqında ətraflı məlumatlar verməklə yanaşı əsas diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və həmin münaqişənin sülh yolu ilə tənzimlənməsi məsələlərinə yönəldirdi.

Dünyanın ən nüfuzlu və universal təşkilatı olmasını nəzərə alaraq Heydər Əliyev BMT-Azərbaycan əlaqələrinə xüsusi önəm verirdi. Elə bu uzaqgörən və ardıcıl siyasət nəticəsində BMT Təhlükəsizlik Şurasının Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi ilə əlaqədar dörd qətnaməsinin qəbul olunmasından sonra həmin siyasətin nəticəsi kimi BMT Baş Assambleyasının 65-ci sessiyasında "İşğal olunmuş ərazilərdə vəziyyətə dair" məsələ müzakirə olunmuş və müvafiq qətnamə qəbul edilmişdir. Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində ulu öndər Heydər Əliyev ölkəmizin milli maraqlarını və təhlükəsizliyini nəzərə alaraq dünyanın böyük güc mərkəzləri ilə balanslaşdırılmış siyasətə üstünlük verdi. Belə güc mərkəzləri kimi həmin dövrdə ABŞ, Avropa İttifaqı, Rusiya Federasiyası və Çin çıxış edirdi. Bu ölkələrin bəzilərinin BMT Təhlükəsizlik Şurasının üzvü olması faktını nəzərə alaraq, Heydər Əliyev həmin ölkələrlə daha yaxşı əlaqələrin qurulmasına çalışırdı. Ulu öndər eyni zamanda müstəqilliyin ilk illərində bəzi yaxın və uzaq ölkələrlə pozulmuş əlaqə və münasibətlərin yenidən qurulmasına çox böyük önəm verirdi.

Azərbaycan Respublikasının siyasi və hərbi təhlükəsizliyini təmin etmək məqsədilə Heydər Əliyev müasir dünyanın ən güclü və nüfuzlu hərbi-siyasi təşkilatı olan NATO ilə əməkdaşlığa da çox böyük üstünlük verirdi.

Bu məqsədlə 1994-cü ilin may ayının 4-də NATO-nun mənzil-qərargahının yerləşdiyi Brüssel şəhərinə səfər edərək orada "Sülh Naminə Tərəfdaşlıq Proqramının" çərçivə sənədini imzalamışdır. Sənədin imzalanmasından sonra Azərbaycan-NATO əlaqələrində dinamik inkişaf başladı, ölkəmizin təhlükəsizliyi ilə bağlı Alyansla daimi məsləhətləşmələr aparıldı, Azərbaycan ordusunda islahatların gerçəkləşdirilməsi və ordunun NATO standartlarına uyğunlaşdırılması həyata keçirildi. Bununla yanaşı, Azərbaycan ordusunun hissələri NATO-nun müxtəlif sülhyaratma əməliyyatlarında iştirak etməyə başladı. Hazırda NATO-Azərbaycan əlaqələri yüksələn xətt üzrə inkişaf edir. "Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Proqramı" çərçivəsində Alyansla Azərbaycan arasında bir çox sahələrdə əməkdaşlıq uğurla davam etdirilir. NATO Parlament Assambleyasının ildə iki dəfə keçirilən sessiyalarında Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyəti yaxından iştirak edir. 2010-cu ilin sonlarında keçirilən NATO-nun Lissabon sammitində qəbul olunmuş Alyansın "Yeni strateji konsepsiyasında" Azərbaycan Respublikasının ərazi bütövlüyü dəstəklənmişdir. Qeyd etmək lazımdır ki, NATO-nun bundan əvvəl keçirilən Riqa və Buxarest sammitlərində də Azərbaycanın ərazi bütövlüyü dəstəklənmişdir.

Özünün xarici siyasət kursunda ümummilli lider Heydər Əliyev Avropa İttifaqı ilə əlaqələrə xüsusi əhəmiyyət verirdi. Çünki Avropa İttifaqı dünyada baş verən bütün siyasi hadisə və proseslərə təsir etmək imkanlarına malik olan bir təşkilatdır. 1996-cı ildə Avropa İttifaqı ilə Azərbaycan arasında Lüksemburqda "Bir tərəfdən Avropa Birliyi və onun üzvü olan dövlətlər, digər tərəfdən Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" imzalanmışdır. Sənəddə Azərbaycanla Avropa İttifaqı arasında siyasi və ticarət sahəsində əməkdaşlıq, Azərbaycanın qanunvericiliyinin Avropanın hüquq sisteminə uyğunlaşdırılması məsələləri öz əksini tapmışdır. Hazırda Azərbaycan Avropa İttifaqı ilə "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində əməkdaşlıq edir.

Özünün xarici siyasət kursunda Heydər Əliyev Avropa Şurası kimi mötəbər bir təşkilata da çox böyük əhəmiyyət vermişdir. 2001-ci il yanvarın 25-də Azərbaycan AŞ-nın tam hüquqlu üzvü seçilmişdir. Bu il Azərbaycanın AŞ-na üzvlüyünün 10 ili tamam oldu. Ötən bu 10 il ərzində Azərbaycanla AŞ arasında əlaqələr dinamik olaraq inkişaf etmişdir. Azərbaycan Respublikası Milli Məclisinin AŞ Parlament Assambleyasındakı nümayəndə heyəti sessiyalarda fəal iştirak edərək Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması sahəsində çox böyük işlər görmüşlər. 2011-ci ilin yanvar ayında AŞ-nın Dağlıq Qarabağa dair Alt Komitəsinin işinin yenidən bərpa olunması haqda qərar qəbul olunmuşdur.

Azərbaycanın xarici siyasətində ulu öndər Heydər Əliyev eyni zamanda MDB, GUAM, Qara dəniz İqtisadi Əməkdaşlıq Komitəsi, İslam Konfransı Təşkilatı və digər təşkilatlarla əlaqə və münasibətlərin qurulmasına böyük əhəmiyyət vermişdir. Həmin siyasətin məntiqi nəticəsi kimi yuxarıda adlarını çəkdiyimiz təşkilatların böyük əksəriyyəti beynəlxalq qurumlarda Azərbaycanın haqlı mövqeyini dəstəkləyirlər.

Azərbaycan Respublikasının əlverişli geosiyasi və coğrafi məkanda yerləşməsini, Şərqlə Qərb, Şimalla Cənub arasında təbii körpü rolunu oynamasını və eyni zamanda zəngin təbii sərvətlərə, karbohidrogen ehtiyatlarına malik olmasını nəzərə alaraq Heydər Əliyev neft-qaz və nəqliyyat kommunikasiya layihələrinin işlənib hazırlanmasına və praktik olaraq həyata keçirilməsinə xüsusi əhəmiyyət verməyə başladı. Azərbaycanın o dövrdəki iqtisadi vəziyyətini nəzərə alan Heydər Əliyev ilk növbədə ölkəyə xarici investisiyaların cəlb olunması istiqamətində lazımi işlərin görülməsini təmin etdi. Belə tədbirlərdən biri xarici investorların investisiyalarının qorunması və onlar üçün əlverişli şəraitin yaradılması idi. Ölkəyə xarici investisiyaların cəlb olunması üçün ilk növbədə neft və qaz layihələrinin reallaşdırılmasını və onun dünya bazarlarına çıxarılmasını təmin etmək lazım idi. 1994-cü ildə çox böyük maneə və çətinliklərə baxmayaraq "Əsrin müqaviləsi" adlanan böyük neft müqaviləsinin bağlanması ilə bu istiqamətdə ilk addım atıldı.

Tarixi təcrübə göstərdi ki, ulu öndərin uğurlu neft strategiyası ölkəmizin iqtisadi inkişafı ilə bərabər onun beynəlxalq imicinin və nüfuzunun artmasına da səbəb olmuşdur. Heydər Əliyevin yeni neft strategiyası nəticəsində bu gün Azərbaycan Respublikası regionun ən dinamik inkişaf edən, iqtisadi cəhətdən özünü tam təmin edən, heç bir ölkədən asılı olmayan və eyni zamanda tam müstəqil siyasət yeridən bir ölkəyə çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət nəticəsində hazırda Azərbaycan regionun ən güclü və dinamik inkişaf edən ölkəsinə çevrilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan neft strategiyasının inkişaf etdirilməsinə böyük önəm verir və neft-qaz kəmərlərinin daha çox şaxələnməsinə çalışır. 2010-cu ildə Azərbaycanda 30 milyard kubmetr qaz və 52 milyon ton neft hasil olunmuşdur. Həmin məhsulların müxtəlif istiqamətlərdə dünya bazarlarına çıxarılması çox vacibdir. Bu yaxınlarda Xəzərin "Ümid" yatağında 200 milyard kubmetr qaz ehtiyatının aşkar edilməsi gələcəkdə ölkəmizin iri qaz ixracatçısı olan ölkələrdən birinə çevrilməsi ümidlərini bir daha artırır.

2011-ci il yanvar ayının 17-də Davosda keçirilən 41-ci Dünya İqtisadi Forumunda çıxış edən Prezident İlham Əliyev qeyd etmişdir ki, Azərbaycan müstəqil siyasət yürüdən, regionda yaxşı mövqeyə malik olan və gələcəyə böyük ümidlərlə baxan müstəqil ölkədir. Dövlət başçısı İlham Əliyev Azərbaycanın neft ölkəsi kimi tanındığını xatırladaraq qeyd etmişdir ki, neft XIX əsrdə məhz Azərbaycanda hasil edilmişdir. "Sonradan dənizdə də neft yenə Azərbaycanda çıxarılıb. Lakin bu gün biz bir sıra mühüm şaxələnmə layihələri üzərində işləyirik. Bizim enerji daşıyıcılarını beynəlxalq bazarlara nəql edən 3 neft və 4 qaz boru kəmərimiz var. Biz nəhəng qaz yataqlarını aşkar etmişik. Onlar bizə böyük qaz ixracatçısı olmağa imkan verir. Hazırda biz təbii qazı qonşu ölkələrə ixrac edirik. Hasilatın artırılması və yeni bazarların tapılması ilə bağlı böyük planlarımız var. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,2 trilyon kubmetrdir və bu həcm İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı sədrinin qeyd etdiyi kimi bizim üçün 100 ildən artıq müddətə kifayətdir".

2011-ci ilin yanvar ayının ortalarında Avropa İttifaqı ilə Azərbaycan arasında enerji razılaşması əldə olunmuşdur. Həmin razılaşma Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun Bakıya rəsmi səfəri zamanı əldə olunmuşdur. İmzalanmış birgə Bəyannamədə qeyd olunur ki, Azərbaycan Avropa İttifaqına uzunmüddətli perspektiv üçün əhəmiyyətli həcmdə qaz verməsini öhdəlik kimi öz üzərinə götürür, Avropa İttifaqı isə həmin qazın bazara çıxarılmasını təmin edir. Analoji razılaşma Türkmənistan tərəfi ilə də əldə olunmuşdur. Bakıya səfərindən dərhal sonra Avropa Komissiyasının sədri X.M.Barrozu Türkmənistana səfər edərək, həmin ölkənin Prezidenti Qurbanqulu Berdiməhəmmədovla görüşmüş və "NABUCCO" layihəsinin reallaşması üçün rəsmi Aşqabadın razılığını almışdır. Çox böyük qaz ehtiyatlarına malik olan Türkmənistan da özünün qaz kəmərlərinin saxlanmasında maraqlıdır. Türkmənistandan başlanan "NABUCCO" qaz kəməri Xəzər dənizinin dibindən keçərək, Azərbaycan-Gürcüstan-Türkiyə ərazisi vasitəsilə Avropaya çıxacaqdır. Daha sonra kəmərin iki şaxəyə - Türkiyə - Yunanıstan - İtaliya və Transadriatik boru kəmərlərinə ayrılması planlaşdırılır. Ümumiyyətlə, "NABUCCO" qaz kəməri ilə ildə 31 milyard kubmetr qaz nəql olunması nəzərdə tutulur. Kəmərin tikintisinin 2015-ci ildə başa çatdırılması nəzərdə tutulur. Azərbaycan Prezidenti İlham Əliyev bu və digər layihələri nəzərə alaraq qeyd etmişdir ki, bu gün regionda Azərbaycanın iştirakı olmadan heç bir layihənin həyata keçirilməsi mümkün deyildir.

"Cənub qaz dəhlizi"nə "NABUCCO" və onun qolları olan TYİ, Transatlantik qaz kəmərləri ilə yanaşı, Azərbaycan, Gürcüstan və Rumıniyanın iştirakı ilə həyata keçirilən AGRİ layihəsi də daxildir. 2010-cu ilin sentyabr ayında həmin layihənin reallaşdırılması məqsədi ilə Bakı Bəyannaməsi qəbul olunmuşdur. Bu məqsədlə iştirakçı dövlətlər birgə müəssisənin yaradılmasına da razılıq vermişlər. Layihəyə görə Azərbaycan qazı Gürcüstanın Qara dəniz sahilindəki xüsusi terminala çatdırıldıqdan sonra orada sıxılmalı, oradan gəmilər vasitəsilə Konstansa limanına çatdırılmalı və orada yenidən təbii qaz halına gətirilməlidir. Həmin layihənin ötürücülük gücündən asılı olaraq ildə 5-8 milyard qaz ixrac etmək olar.

İkinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev dünyada və regionda gedən prosesləri nəzərə alaraq transmilli nəqliyyat-kommunikasiya layihələrinin reallaşmasına da böyük önəm verməyə başladı. Avropa ilə Asiyanı birləşdirən TRASEKA layihəsi hələ qədim zamanlardan mövcud olan "Qədim İpək yolu" marşrutunun yeni layihəsidir. Ulu öndərin uzaqgörən diplomatik səyləri nəticəsində 1998-ci ilin sentyabr ayında Bakıda TRASEKA layihəsinin reallaşması istiqamətində ilk addım atıldı və böyük bir beynəlxalq konfrans keçirildi. Həmin beynəlxalq konfransda 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndələri iştirak edirdilər. Konfrans iştirakçıları TRASEKA layihəsinin texniki və iqtisadi tərəflərini özündə əks etdirən sənəd qəbul etdilər. Sənəd "Avropa-Qafqaz-Asiya" nəqliyyat dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas saziş adlandırılmışdır. Qeyd etmək lazımdır ki, TRASEKA layihəsi Çindən və Sarı dənizdən Avropaya qədər gedib çıxan çox böyük bir layihədir. Avropanı Asiya ilə birləşdirən bu layihə iqtisadi cəhətdən çox səmərəli layihədir. Hazırda Avropa ilə Asiya arasında əsas marşrut kimi Süveyş kanalından istifadə olunur. Avropa ilə Asiya arasında hazırda ticarət dövriyyəsi 2 trilyon, nəqliyyat xərcləri isə 200 milyard dollardır. TRASEKA layihəsinin tam reallaşmasından sonra Avropa ilə Asiya arasındakı yük daşımaları Süveyş kanalı vasitəsi ilə daşınan yüklərdən 20 gün tez Avropaya və əks istiqamətə çatdırıla bilər. TRASEKA layihəsinin əsas marşrutunun Azərbaycan üzərindən keçməsini nəzərə alsaq, gələcəkdə ölkəmizin əsas tranzit ölkələrdən birinə çevrilməsini aydın şəkildə təsəvvür etmək olar.

Ümummilli lider Heydər Əliyevin çox böyük əhəmiyyət verdiyi layihələrdən biri də TRASEKA layihəsinin ayrılmaz tərkib hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin tikilib istifadəyə verilməsi olmuşdur. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi dünyanın ən böyük transmilli dəmir yolu layihələrindən biridir. Layihənin reallaşması nəticəsində dəmir yolunun üzərində yerləşən ölkələr çox böyük iqtisadi səmərə əldə edə bilərlər. Layihənin reallaşmasından sonra yükdaşımaların həcminin artması ilə yanaşı, nəqliyyat daşımalarında tətbiq olunan tariflər və rüsumlar aşağı düşəcək və yüklərin çatdırılma vaxtı xeyli azalacaqdır.

2007-ci ilin fevral ayında Azərbaycan və Gürcüstan respublikalarının prezidentləri Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə dair yekun sənədini imzaladılar. Bundan sonra dəmir yolunun tikintisinə start verildi. Qeyd etmək lazımdır ki, digər layihələrin gerçəkləşməsində olduğu kimi Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin reallaşmasında da bir çox maneələr yaradılmışdır. Bütün bu maneə və çətinliklərə baxmayaraq dəmir yolunun tikintisi uğurla davam etdirilir və 2012-ci ildə onun istifadəyə verilməsi nəzərdə tutulmuşdur. Azərbaycan dəmir yolunun Gürcüstandan keçən hissəsinin tikilməsi üçün 200 milyon dollar vəsait ayırmışdır. Azərbaycan üçün dəmir yolunun tikilib istifadəyə verilməsinin bir üstün cəhəti də ondan ibarətdir ki, Türkiyənin Qars şəhərindən Naxçıvana da dəmir yolu çəkilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev 2011-ci ilin yanvar ayının 17-də Davosda keçirilən iqtisadi forumda qeyd etmişdir ki, Azərbaycanın coğrafi mövqeyi çox əlverişlidir: "Hazırda biz Şərq-Qərb və Şimal-Cənub daşıma dəhlizləri sahəsində işləyirik. Türkiyə ilə Azərbaycan arasında olan dəmir yolu xətti sırf iki ölkəni birləşdirən xətt deyil, əslində bu, Avropa ilə Asiya arasındakı bağlantıdır. Çünki həmin dəmir yolu Çindən başlayıb Avropaya qədər gedəcək. Bu, yeni etibarlı alternativlərin yaranmasına imkan verəcək və bütün tərəflər üçün faydalı, səmərəli marşrut olacaq".

Hazırda Azərbaycan Respublikası Şimal-Cənub nəqliyyat-kommunikasiya dəhlizinin tam gücü ilə işləməsində maraqlı ölkə olaraq qalmaqdadır. Şimal-Cənub nəqliyyat-kommunikasiya dəhlizi Azərbaycandan keçərək İran-Rusiya və Avropanı birləşdirir. 2001-ci ilin aprel ayında Tehranda Rusiya ilə İran arasında nəqliyyat sahəsində memorandum imzalanmışdır. Həmin sənəddə qeyd olunur ki, Şimal-Cənub nəqliyyat dəhlizinin reallaşdırılması üçün Rusiya-Azərbaycan-İran dəmir yolu marşrutunun tam tikilməsi çox vacibdir. Dəmir yolunun Astara (İran) - Rəşt-Qəzvin hissəsinin tikintisini İran tərəfi öz üzərinə götürmüşdür və hazırda tikinti işləri davam etdirilir. Layihədə İran Astarası ilə Azərbaycan Astarasını birləşdirən dəmir yolu da çəkilməlidir. Qeyd etmək lazımdı ki, Sovet İttifaqı dövründə İranla SSRİ-ni birləşdirən yeganə dəmir yolu Azərbaycan ərazisindən keçərək Naxçıvana, oradan isə İrana gedirdi. Sovet İttifaqı dağıldıqdan sonra həmin dəmir yolunun keçdiyi ərazilərin bir hissəsinin Ermənistan tərəfindən işğal olunması və dəmir yolunun tamamilə dağıdılması nəticəsində həmin dəmir yolu hazırda işləmir. 2011-ci ilin yanvar ayının 31-də Tehranda "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin tikilməsi istiqamətində növbəti üçtərəfli görüş (Azərbaycan-Rusiya-İran) başlanmışdır. İki gün davam edən tədbirdə "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan Qəzvin-Rəşt-Astara (İran) - Astara (Azərbaycan) xəttinin tikintisinə dair birgə müştərək müəssisəsinin təsis olunması, tikintinin layihələndirilməsi və digər məsələlər müzakirə olunmuşdur.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də uğurlu neft strategiyasının işlənib hazırlanması və reallaşması oldu. Heydər Əliyevin gərgin əməyi və əzmkarlığı sayəsində Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri tikilib istifadəyə verildi. 1999-cu ilin noyabr ayında Türkiyənin İstanbul şəhərində ATƏT-in zirvə sammiti çərçivəsində "Bakı-Tbilisi-Ceyhan" ixrac boru kəməri vasitəsi ilə Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən Xəzər dənizindən çıxarılan əsas xam neftin nəqli haqqında" saziş imzalandı. Sazişi prezidentlər Bill Klinton, Heydər Əliyev, Süleyman Dəmirəl və Eduard Şevardnadze imzalamışlar. Həmin layihənin reallaşmasından sonra Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsinin reallaşdırılmasına başlanıldı.

Adıçəkilən neft və qaz kəmərlərinin işə düşməsi nəticəsində ölkəmizin gücü artmış, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolu güclənmişdir. İndiyə qədər Azərbaycana 90 milyard dollar investisiya qoyulmuşdur ki, onun 50 milyardı xarici investorların payına düşür. 2011-ci ildə Azərbaycanda 51 milyon ton neft hasil olunubdur ki, onun da 45 milyon tonu ixrac olunmuşdur. Ulu öndər Heydər Əliyevin uğurlu neft strategiyasının reallaşması nəticəsində hazırda Azərbaycan regionun ən güclü və dinamik inkişaf edən, özünün enerji tələbatını tam təmin edən və heç bir ölkədən asılı olmayan bir ölkəyə çevrilmişdir.

Dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan Respublikasının qarşısında ən çətin və mürəkkəb məsələlərdən biri də ölkənin xarici siyasət kursunun milli təhlükəsizlik tələbatlarına uyğunlaşdırılması sahəsində atılan addımlar oldu. Böyük dövlət xadimi olan Heydər Əliyevin dövlət idarəçiliyi sahəsindəki təcrübəsi və biliyi sayəsində ölkəmiz həmin dövrdə bir çox təhdid və təhlükələrdən xilas oldu. Ölkənin xarici siyasət kursunu müəyyən edərkən Heydər Əliyev birinci növbədə Azərbaycanın milli maraqlarına əsaslanan milli təhlükəsizlik siyasətini əsas götürməyə çalışmışdır. Məlum olduğu kimi, hər bir ölkənin xarici siyasəti həmin dövlətin suverenliyini, ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək üçün aparılan siyasətdir. Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti milli mənafeyə və maraqlara əsaslanır. Məlumdur ki, milli maraqları da milli tələbatlar yaradır. Bir çox politoloqlar milli mənafeləri bəzi meyarlara görə əsas maraqlara və xüsusi maraqlara ayırmağa çalışırlar.

Milli mənafe və milli təhlükəsizlik konsepsiyası əsasən ötən əsrin əvvəllərində ABŞ politoloqları və siyasi xadimləri tərəfindən işlənilmişdir. ABŞ siyasi realizm məktəbini yaradanlarından biri olan H.Morgentau ilk dəfə

milli mənafe və milli təhlükəsizlik konsepsiyasını nəzəri cəhətdən işləmişdir. H.Morgentau ölkənin milli təhlükəsizliyinin təmin olunmasında güc amilini ön plana çəkmişdir. Hər bir ölkənin gücü onun iqtisadi və hərbi gücündən, həmin ölkənin böyüklüyü və əhalisinin sayından, geosiyasi mövqeyindən, təbii ehtiyatlarından, xarici ölkələrlə aparılan diplomatiyanın səmərəliliyindən və başqa amillərdən asılıdır.

Milli təhlükəsizliyin xarici siyasət vasitəsilə təmin olunmasına ilk növbədə ölkəmizin ərazi bütövlüyü və suverenliyi, dövlətin və şəxsiyyətin təhlükəsizliyinin təmin olunması daxildir. Suveren dövlət kimi bu gün Azərbaycan daxili və xarici siyasət vasitələrindən istifadə edərək, mövcud təhlükəsizlik mühitinə təhdidlərin nəzarət altında saxlanmasına və aradan qaldırılmasına çalışır.

Şərqlə Qərb, Şimalla Cənub arasında təbii körpü rolunu oynaması və əlverişli geosiyasi məkanda yerləşməsi, eyni zamanda zəngin təbii sərvətlərə malik olması dünyanın bir çox dövlətlərinin Azərbaycana marağını daha da artırır. Yuxarıda qeyd olunan bir çox üstünlüklərlə yanaşı, Azərbaycana qarşı bir çox təhdid və təhlükələrin qarşısını almaq məqsədi ilə ölkəmiz təhlükəsizlik mühitini daima nəzarətdə saxlamaq məcburiyyətindədir. Ölkə başçısı İlham Əliyev Azərbaycanın mürəkkəb geosiyasi məkanda və əhatədə olmasını nəzərə alaraq, böyük güc mərkəzləri ilə balanslaşdırılmış siyasət yeridir. Ölkə başçısı İlham Əliyevin siyasəti eyni zamanda ölkəmizin həmin güc mərkəzlərinin maraqlarının toqquşması meydanına çevrilməsi cəhdlərinin qarşısının alınmasına yönəlmişdir.

Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsas müddəaları 2004-cü ilin iyun ayının 29-da Milli Məclis tərəfindən qəbul olunmuş "Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanununda", 2007-ci ilin may ayının 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında" və 2010-cu ilin iyun ayında Milli Məclis tərəfindən qəbul olunmuş "Azərbaycan Respublikasının hərbi doktrinasında" və digər müvafiq qanunlarda öz əksini tapmışdır.

"Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında" deyilir: "Azərbaycan Xəzər-Qafqaz məkanında regional əməkdaşlıq üçün olduqca mühüm, bir çox hallarda isə həlledici dövlət olub, xüsusən enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində əvəzsiz rol oynamaqdadır." Daha sonra sənəddə qeyd olunur ki, "Azərbaycan Respublikasının təhlükəsizlik mühiti onun suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, milli maraqları, davamlı inkişafı, əhalinin rifah və dəyərlərinin qorunmasına təsir edən amillərin məcmusudur." Sənəddə qeyd olunur ki, Azərbaycan Respublikasının yerləşdiyi və hazırda qeyri-sabit olan region dostluq və əməkdaşlıq ruhlu regional və beynəlxalq tərəfdaşlarla birlikdə inkişaf üçün səmərəli istifadə oluna biləcək geniş potensiala və imkanlara malikdir. Ölkənin yerləşdiyi coğrafi şərait vacib üstünlüklər verməklə yanaşı, eyni zamanda onu bir sıra təhlükəsizlik problemləri ilə də üzləşdirir.

**“Azərbaycan”.-**2011.-7 may.-N 98.-S.7.

# MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN TƏMƏL PRİNSİPLƏRİ VƏ MÜASİRLİK

**Mübariz QURBANLI,**
Milli Məclisin komissiya sədri,
YAP İdarə Heyətinin üzvü

**Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdi. Dövlət müstəqilliyinin bərpasından sonra qarşıda duran ən ümdə vəzifələrdən biri müstəqil dövlət quruculuğunu həyata keçirmək idi. Qısa müddət ərzində dünya birliyi və beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın dövlət müstəqilliyi faktik və hüquqi cəhətdən tanındı. Müstəqilliyimizin ilk illərində qarşıda duran tarixi missiyanı həll etmək üçün bir neçə istiqamətdə təcili və təxirəsalınmaz tədbirlər həyata keçirilməli idi. Lakin məlum olduğu kimi, müstəqilliyin ilk illərində Azərbaycanda siyasi hakimiyyətdə olmuş qüvvələr xalqın və millətin maraqlarını ifadə edən siyasi xətti nəinki həyata keçirə bilmiş, hətta öz əməlləri ilə dövlət müstəqilliyimizi böyük təhlükə ilə üz-üzə qoymuşdular. Yalnız 1993-cü ilin iyun ayında Azərbaycan xalqının böyük istəyi və tələbi nəticəsində siyasi hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü və düşünülmüş siyasət sayəsində müstəqil dövlətimizin quruculuğu istiqamətində ciddi addımlar atılmışdır.**

Hər bir xalq öz inkişafının müəyyən mərhələsində taleyüklü məsələləri həll etmək üçün böyük liderə və şəxsiyyətə ehtiyac duyur. Bu baxımdan, ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyun ayında yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıdışı böyük əhəmiyyət daşıyırdı. Müstəqilliyin bəyan edilməsi hələ qarşıda duran mürəkkəb və çətin vəzifələrin həlli demək deyildi. Əsas məsələ siyasi, iqtisadi, mənəvi, psixoloji, hərbi və s. sahələr üzrə möhkəm zəminə əsaslanan dövlət qurmaq idi.

Sovet sistemi dağıldıqdan sonra müstəqillik əldə edən respublikaların hər birində dövlət quruculuğu istiqamətində müəyyən addımlar atılırdı. Lakin Azərbaycan üçün bu prosesi mürəkkəbləşdirən amillərdən biri Ermənistanın ölkəmizə qarşı davam edən təcavüzü, eyni zamanda, daxildə mövcud olan hərcmərclik idi. Müstəqil dövlət quruculuğu sahəsində bir sıra vacib qərarların qəbul olunması zəruri idi. Məlum olduğu kimi, sovet sistemi ictimai mülkiyyətə və vahid ideologiyaya söykənirdi. Bu sistemdə inzibati-amirlik idarə üsulu hökmran rol oynayırdı. Deməli, ilk öncə bazisdə əhəmiyyətli dəyişikliklər etmək zərurəti yaranmışdı.

Sovet iqtisadi sistemindən qalmış modeli yeniləşdirmək, istehsal münasibətlərini dəyişmək, insanların psixologiyasını yeni şəraitə uyğunlaşdırmaq və bu kimi məsələləri həll etmək müəyyən vaxt tələb edirdi.

1993-cü ilin iyun hadisələri zamanı siyasi hakimiyyətin ağır və şərəfli məsuliyyətini öz üzərinə götürən Heydər Əliyev bir tərəfdən Azərbaycanı bürümüş total böhranı aradan qaldırmalı, digər tərəfdən, Ermənistanın davam edən təcavüzünün qarşısını almalı, ictimai-siyasi və iqtisadi sabitliyi bərqərar etməli idi. Bu dövrdə, demək olar ki, ölkə əvvəlki iqtidarların naşı siyasətlərinin nəticəsi olaraq tam iflas vəziyyətində idi. Dövlət orqanları öz üzərlərinə düşən vəzifələri yerinə yetirə bilmir, qanunlar işləmir, hər yerdə insanlar arasında ümidsizlik və inamsızlıq hökm sürürdü. Belə ağır vəziyyətdə ulu öndər Heydər Əliyev ciddi və cəsarətli addımlar ataraq müasir, müstəqil Azərbaycının dövlət quruculuğunun əsaslarını yaratmağa başladı. 1993-95-ci illər arasında müstəqil dövlət quruculuğu sahəsində ardıcıl və məqsədyönlü siyasət həyata keçirildi.

Dövlət quruculuğu siyasəti - inqilabi və ya təkamül yolu ilə həyata keçirilə bilərdi. Elə sahələr vardı ki, orada qəti addımlar ataraq daha tez irəliləmək lazım idi. Bu, əsasən siyasi sahələri əhatə edirdi. Müstəqil dövlət quruculuğu milli təhlükəsizlik istiqamətində vaxt itirmədən qərarların qəbul olunmasını gündəmə gətirmişdi. Qısa zaman kəsiyində ümummilli lider Heydər Əliyevin uzaqgörən və məqsədyönlü siyasəti sayəsində Azərbaycanda ictimai-siyasi sabitlik bərqərar oldu. 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında Azərbaycanda dövlət çevrilişlərinə cəhdlərin qarşısının alınması dövlətin daha da möhkəmlənməsinə və silahlı yolla hakimiyyətə gəlmək iddialarına birdəfəlik son qoydu. Ordu quruculuğu sahəsində mühüm işlərin görülməsi və dövlət idarəçilik sisteminin yeniləşməsi istiqamətində həyata keçirilən tədbirlər səmərəli nəticələr verdi.

Müstəqil Azərbaycan dövlətinin iqtisadi modelinin yaradılması üçün böyük islahatlar aparılması, yeni qanunların qəbul edilməsi, ən başlıcası, müstəqil Azərbaycanın Konstitusiyasının işlənib hazırlanması ciddi vəzifə kimi qarşıda dayanırdı. Bu baxımdan, iqtisadi sahədə həyata keçirilən tədbirlər olduqca əhəmiyyətli rol oynamışdır. Məlumdur ki, sovetlər sistemində mülkiyyət üzərində dövlət nəzarəti, o cümlədən, torpaq üzərində də nəzarət var idi. Uzun illər Azərbaycan kəndlisi torpağa sahib olmaq istəyi ilə yaşamışdı. Sovet-kommunist rejimində torpaqların kolxoz-sovxoz təsərrüfatı adı ilə kəndlilərin əlindən alınması bu sahədə ciddi problemlər yaratmışdı. Müstəqil Azərbaycanın qarşısında dayanan ciddi islahatlardan biri torpaq islahatı idi. Tarixdən

bildiyimiz kimi, torpaq islahatı ən çətin islahatlardan biridir. Aqrar islahat böyük cəsarət, qətiyyət və ardıcıllıq tələb edir. Məsələnin çətinliyinə və mürəkkəbliyinə baxmayaraq, ümummilli Lider Heydər Əliyevin tapşırığı ilə kənd təsərrüfatında islahatlar aparılması üçün qanunlar və proqram işlənib hazırlandı.

1993-cü ildən başlayaraq, Heydər Əliyevin tapşırığı ilə aqrar islahatları həyata keçirmək üçün bir sıra qanunlar - "Torpaq islahatı haqqında", "Torpaq icarəsi haqqında", "Torpaq bazarı haqqında" və digər qanunlar qəbul edilərək həyata keçirilmişdir. Bununla yanaşı, Prezident aqrar sahəni əhatə edən fərman və sərəncamlar imzalamış, fermer-kəndli təsərrüfatlarının yaradılması və idarə olunması üçün hüquqi baza yaradılmışdır. Həyata keçirilən aqrar islahat ölkənin ictimai-siyasi həyatında, Azərbaycanın ərzaq təhlükəsizliyinin təmin olunmasında təsirli rol oynamışdır. Aqrar sahədə aparılan islahatlar bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz bunun nəticəsidir ki, Azərbaycan hazırda bir çox ərzaq məhsulları ilə özünü tam təmin edir.

Müstəqil dövlət quruculuğu sahəsində qarşıda duran digər vacib bir məsələ Azərbaycanın Konstitusiyasının qəbul edilməsi idi. Bildiyimiz kimi, 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti öz konstitusiyasını qəbul edə bilməmişdi. Yəni 1920-ci ilin aprelində bolşevik istilasının baş verməsi və cümhuriyyətin süqutu belə bir addımı atmağa imkan verməmişdi. Sovetlərin tərkibində olduğu illərdə Azərbaycanın konstitusiyası olsa da, bu, müstəqil dövlətin konstitusiyası sayıla bilməzdi. Odur ki, müstəqil Azərbaycanın qəbul ediləcək konstitusiyası millətimizin gələcək perspektivlərini və tarixi inkişaf yolunu, eyni zamanda, siyasi-iqtisadi idarəçilik modelini tam şəkildə özündə əks etdirməli idi. Konstitusiyanın qəbulu məsələsi olduqca mühüm məsələ idi. Bütün bu nüansları nəzərə alan ulu öndər Heydər Əliyev konstitusiyanın hazırlanması üçün xüsusi komissiya - Konstitusiya komissiyası yaradılması haqqında fərman vermişdi. Həmin komissiya müəyyən müddət ərzində xalqımızın keçdiyi tarixi yolu, milli inkişaf xüsusiyyətlərimizi və eyni zamanda digər xalqların dövlət idarəçilik təcrübəsini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının layihəsini ümumxalq müzakirəsinə təqdim etmişdi. Ümummilli lider Heydər Əliyevin ideya rəhbəri və müəllifi olduğu bu konstitusiya 1995-ci il noyabr ayının 12-də referendum yolu ilə qəbul edildi. Azərbaycan Respublikasının ilk Konstitusiyası müstəqil dövlətimizin iqtisadi və siyasi modelini müəyyən etdi. Konstitusiyaya görə, Azərbaycan hüquqi, demokratik, dünyəvi və unitar dövlət elan edilir və hakimiyyətin bölgüsü prinsipi reallaşırdı. Müstəqil Azərbaycanın Konstitusiyası vətəndaşların hüquq və azadlıqları sahəsində böyük imkanlar yaratmaqla, mülkiyyət münasibətlərində dövlət, bələdiyyə və şəxsi mülkiyyəti toxunulmaz elan edərək, onların qorunmasına dövlət təminatını təsbit edirdi.

Müstəqil Azərbaycanın Konstitusiyasından bəhs edərkən Heydər Əliyev demişdir: "Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, ali icra, qanunvericilik, məhkəmə hakimiyyətləri - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Dövlət xalqın işi olmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyamızın əsasını təşkil etməlidir".

Müstəqil dövlətimizin Heydər Əliyevin rəhbərliyi ilə qəbul olunan Konstitusiyası Azərbaycanın gələcək inkişaf yolunu dəqiq və aydın şəkildə müəyyən edirdi. Bu məsələdən danışarkən Heydər Əliyev deyirdi: "Hesab edirəm ki, bütün gələcək nəsillərdə meydana çıxacaq sualların hamısına burada cavab var. ...Hesab edirəm ki, biz Azərbaycanın bugünü, gələcəyi üçün çox böyük bir sənəd - siyasi, hüquqi sənəd hazırlamışıq".

Müstəqil dövlət quruculuğunda mühüm məsələlərdən biri ölkənin strateji mövqeyini möhkəmlətmək, onun təbii sərvətinə tam sahib çıxaraq xalqın rifahını yüksəltməkdir. Sovet rejimi illərində Azərbaycan xalqına aid olan təbii sərvətlər keçmiş İttifaqın məqsədlərinə sərf olunurdu. Coğrafi baxımdan əlverişli regionda yerləşən Azərbaycan bundan yararlana bilmirdi. Neft və digər yeraltı-yerüstü sərvətlərə sahib olsa da, Azərbaycan xalqı bundan lazımınca öz xeyrinə istifadə edə bilmirdi. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə, yəni XX əsrin 70-80-cı illərində onun həyata keçirildiyi siyasət sayəsində Azərbaycanda bir sıra sənaye obyektlərinin tikilməsi, iqtisadi infrastrukturun yaradılması Azərbaycanın mövqelərini xeyli möhkəmlətsə də, faktiki olaraq respublika iqtisadiyyatı keçmiş İttifaqın iqtisadi sisteminin tərkibində idi. Azərbaycanın istiqlalının bərpası ilə iqtisadi sahədə müstəqil siyasəti həyata keçirmək, ölkənin təbii sərvətlərindən milli maraqlar naminə istifadə etmək imkanı yarandı. 1993-cü ilin iyun ayından ölkədə formalaşmağa başlayan yeni siyasi kurs bütün sahələri, o cümlədən Azərbaycanın öz təbii sərvətlərinə sahib olması üçün həyata keçirilən siyasəti əhatə etdi. Heydər Əliyev dəfələrlə qeyd etmişdir ki, milli sərvətimizə sahib olmadan, milli iqtisadiyyatımızı yaratmadan Azərbaycanın müstəqilliyinin dönməzliyini təmin edə bilmərik.

Siyasi müstəqilliyi iqtisadi müstəqilliklə möhkəmləndirmək ən mühüm vəzifələrdən biri idi. Əks təqdirdə siyasi müstəqillik formal xarakter daşıya bilərdi. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın neft strategiyasının reallaşması üçün imkan yaratdı və Xəzər hövzəsində irimiqyaslı layihələrin uğurla həyata keçirilməsini təmin etdi. 2006-cı ildə Bakı - Tbilisi - Ceyhan neft kəmərinin, 2007-ci ildə Bakı - Tbilisi -

Ərzurum qaz kəmərinin fəaliyyətə başlaması böyük strateji uğur və Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası yolunda həlledici amil oldu.

Özünün təbii sərvətlərinə sahib çıxan Azərbaycan xalqı bu gün regionun lider dövləti olaraq, dünyanın 150-yə qədər ölkəsi ilə ticarət-iqtisadi əlaqələrə malikdir. Azərbaycanın iqtisadi sahədə əldə etdiyi uğurlar həyata keçirilən düzgün siyasətin məntiqi nəticəsidir. İqtisadi inkişafın Azərbaycan modeli özünəməxsus xüsusiyyətlərə malik olmaqla, dünya iqtisadi sistemində istifadə olunan yenilikləri səmərəli şəkildə mənimsəyə bilmişdir. Siyasi və iqtisadi baxımdan keçid dövrünü başa vuran Azərbaycan zamanında Heydər Əliyevin əsasını qoyduğu dövlət idarəçilik modelinin təməli üzərində uğurla irəli gedir. Azərbaycan dünya miqyasında iqtisadi artım sürətinə görə ön sıralarda gedərək islahatçı ölkə kimi tanınır. Ölkədə neft və qeyri-neft bölmələrinin inkişafı çoxşaxəli iqtisadiyyatın ahəngdar yüksəlişini təmin etmişdir. 2008-ci ildə dünyanı bürümüş maliyyə-iqtisadi böhran və onun nəticələri Azərbaycanın iqtisadi inkişaf modelinin üstünlüyünü göstərdi. Yəni Azərbaycan bu böhrandan ən az zərər çəkən ölkələrdən biridir.

Heydər Əliyevin əsasını qoyduğu dövlət idarəçilik modeli bütün sahələrdə - iqtisadi, sosial, humanitar, xarici siyasət və s. özünü doğrultmuşdur. Həyata keçirilən siyasət sayəsində Azərbaycanın enerji təhlükəsizliyi təmin olunmuş, ölkənin beynəlxalq enerji sahəsində yeri və rolu əhəmiyyətli dərəcədə artmışdır.

Ümummilli lider Heydər Əliyevin dövlət qurucuğulu sahəsində reallaşdırdığı siyasətdə demokratik təsisatların və vətəndaş cəmiyyəti prinsiplərinin bərqərar olması xüsusi yer tuturdu. Azərbaycanın dövlət müstəqilliyinin bərpası ilə yeni qurulan dövlətdə insan hüquq və azadlıqlarının təmin edilməsi ümumi siyasətin tərkib hissəsi olaraq həyata keçirilirdi. Bu istiqamətdə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra mühüm addımlar atılmışdır. 1995-ci ildə qəbul edilmiş Konstitusiyada vətəndaşların hüquq və azadlıqları geniş şəkildə təsbit olunmuş, söz, mətbuat və məlumat azadlığına təminat verilmişdir. Medianın azad fəaliyyəti üçün geniş imkanlar yaradılmış, senzura ləğv edilmiş, bütövlükdə bu sahədə əsaslı irəliləyişə nail olunmuşdur.

Azərbaycanda mətbuatın cəmiyyətdəki rolundan danışarkən Prezident İlham Əliyev demişdir: "...Müstəqillik əldə olunandan sonra, əlbəttə ki, azad mətbuatın formalaşması daha da sürətlə getmişdir. Ancaq mən hesab edirəm ki, bu sahədə əsaslı dönüş 1998-ci ildə baş vermişdir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda senzuranın ləğvi, sözün əsl mənasında azad, müstəqil mətbuatın formalaşması, yaranması üçün həlledici rol oynamışdır".

Mətbuatın hərtərəfli inkişafına dövlət tərəfindən daim diqqət və qayğı göstərilmiş, bu sahəyə dəstək üçün 2003-cü ildə Mətbuat Şurası yaradılmışdır. İndi Azərbaycanda 30-dan çox gündəlik qəzet nəşr edilir, 8 ümumrespublika televiziya kanalı fəaliyyət göstərir. Azərbaycanda internet istifadəçilərinin sayı 50 faizdən yuxarıdır. Bu isə o deməkdir ki, Heydər Əliyevin dövlət quruculuğu siyasəti hər bir sahədə olduğu kimi, azad və demokratik medianın yaradılmasında da mühüm uğurlar qazanmışdır.

Ulu öndər Heydər Əliyevin dövlət quruculuğu ilə bağlı həyata keçirdiyi siyasətdə müstəqil Azərbaycan dövlətinin söykəndiyi ideoloji prinsiplərin müəyyən olunması çox əhəmiyyətli yer tutur. Müstəqil Azərbaycanın əsaslandığı dövlətçilik prinsipləri vardır. Bu prinsiplər Heydər Əliyev tərəfindən irəli sürülmüşdür.

Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi Azərbaycan dövlətinin ideya prinsipləri yalnız bugünkü Azərbaycan üçün deyil, gələcəkdə ölkəmizin inkişafı üçün də başlıca mənbə rolunu oynayacaqdır. Ümummilli lider Azərbaycanın milli ideologiyasından, milli baxışlarından danışarkən qeyd etmişdir ki, Yeni Azərbaycan Partiyasının proqramında əks etdirilən prinsiplər, əslində, Azərbaycan xalqının, dövlətimizin söykəndiyi ali prinsiplərdir. Heydər Əliyev bu prinsipləri müəyyən edərkən Azərbaycan xalqının keçdiyi tarixi yolu, milli-mənəvi dəyərləri, eyni zamanda perspektivdə qarşımızda duran vəzifələri nəzərə almışdır. Bu prinsiplər içərisində ən mühüm yerlərdən birini dövlətçilik prinsipi tutur. Dövlətin mövcudluğu müəyyən sərhədlər, müəyyən iqtisadi-coğrafi amillərlə bağlı olmaqla yanaşı, eyni zamanda ənənələrə də söykənir. Dövlətçilik yaşadığımız tarixi dövrün reallıqları ilə tarixi keçmişimiz arasındakı əlaqələrin bərpa olunması və bunun hər bir formada insanlara çatdırılmasıdır. Dövlətçilik dedikdə, ilk növbədə tarixdən bizə ötürülən, nəsillərlə əxz etdiyimiz, qazandığımız dövlət prinsiplərinin saxlanılması, qorunması yada düşür. Xalq üçün birinci onun dövlətidir. Əgər dövlət yoxdursa, hansı ideologiya və prinsipdən danışmaq olar? Heydər Əliyev dəfələrlə qeyd etmişdir ki, müstəqilliyi əldə etmək qədər də onu qoruyub saxlamaq, əbədiliyini dönməz etmək çətindir. Bu baxımdan dövlətçiliyimizə, dövlətçiliyimizin möhkəmləndirilməsinə Heydər Əliyevin verdiyi töhfələr əvəzsizdir.

Dövlətin möhkəmliyi üçün qanunun aliliyi olmalıdır. Heydər Əliyev irəli sürdüyü dövlətin təməl prinsiplərindən biri sayılan qanunun aliliyinin təmin olunmasına ölkəmizdə nail oldu. Dövlət varsa, qanun olmalıdır. Əgər qanun yoxdursa, dövlət mövcud olmayacaq. Dövlət qanuna söykənməlidir. Qanunçuluq prinsipi bir tərəfdən qanunun aliliyidir, digər tərəfdən isə zamanın tələbinə və reallığa uyğun olaraq yeni qanunların yaradılması və onların işlək olmasına ictimai nəzarətin gücləndirilməsidir. Prezident İlham Əliyev

qanunçuluğun qorunmasının inkişaf üçün ən önəmli şərtlərdən biri olduğunu bildirir: "Azərbaycanda qayda-qanun var və hər bir vətəndaş qanunlara tabe olmalıdır. Azərbaycanda sabitliyin qorunması gələcək inkişafımız üçün ən önəmli şərtlərdən biridir". Qanunçuluq Heydər Əliyevin dövlətçiliyə, dövlətin idarə olunmasına, dövlətin təməl prinsiplərinə verdiyi ən böyük töfhələrdən biridir. Qanunçuluğa söykənən cəmiyyətdə vətəndaşların hüquq və azadlıqlarının qorunması başlıca yerlərdən birini tutur. Heydər Əliyevin müəyyən etdiyi qanunçuluq prinsipinin əsasları onun müəllifi olduğu Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır.

Heydər Əliyevin irəli sürdüyü digər bir prinsip azərbaycançılıq ideologiyasıdır. Azərbaycançılıq Azərbaycan xalqını birləşdirən ən mühüm ideya, vətənə sevgi, məhəbbətdir. Azərbaycançılıq, eyni zamanda Azərbaycanda yaşayan bütün xalqların vahid bir ideologiya ətrafında birləşməsi deməkdir. Azərbaycançılıq dövlətin möhkəmləndirilməsinə çalışmaq, ölkənin inkişafı naminə harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının fəaliyyət göstərməsi, bu yöndə öz töhfəsini verməsi deməkdir. Azərbaycançılığı Azərbaycanda ictimai-siyasi dövriyyəyə gətirən və onun yerini praktik olaraq möhkəmləndirən Heydər Əliyevdir. Ümummilli lider çox haqlı olaraq deyirdi ki, azərbaycançılıq söykəndiyimiz təməl prinsiplərin əsasıdır: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətindən qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq". Heydər Əliyev azərbaycançılıq dedikdə, Azərbaycan xalqının öz milli dəyərlərinə söykənməklə bərabər, ümumbəşəri dəyərləri də qəbul etməsini və onlardan yararlanmasını nəzərdə tuturdu. Heydər Əliyev azərbaycançılıq ideologiyasının nəzəri cəhətdən elan edilməsi ilə məsələni bitmiş hesab etməmiş və azərbaycançılığın dünyada olan bütün azərbaycanlılar üçün birləşdirici bir ideologiyaya çevrilməsi üçün xeyli tədbirlər həyata keçirmişdir. Bu baxımdan dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi və burada həmin ideyanın bütün dünyada yaşayan azərbaycanlılara çatdırılması olduqca əhəmiyyətli rol oynamışdır. Bu gün azərbaycançılıq dünyada olan 50 milyon azərbaycanlını vahid ideya ətrafında birləşdirir. Bu məsələ ilə bağlı danışarkən prezident İlham Əliyev demişdir: "Azərbaycan ölkədə yaşayan bütün xalqların doğma vətənidir. Azərbaycan çoxmillətli ölkədir. Burada müxtəlif dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Azərbaycanda nə milli, nə dini zəmində heç vaxt problem olmamışdır və olmayacaqdır. Bu, bizim strateji xəttimizdir. Azərbaycanda bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar".

Azərbaycan dövlətinin təməl prinsiplərindən biri də varislik, yaradıcı təkamül prinsipidir. Bu prinsip Azərbaycan xalqının söykənəcəyi mühüm prinsip kimi qeyd olunur və göstərilir ki, bizim yeni cəmiyyət quruculuğunda əsas vəzifələrimizdən biri keçmişimizdən ibrət dərsi almaqla cəmiyyətimizi irəli aparmaqdır. Varislik Azərbaycan xalqının əvvəlki tarixi dövrlərdə əldə etdiyi nailiyyətləri öyrənmək, prinsipial olaraq əldə edilənləri gələcək nəsillərə ötürməkdir. Bu, hakimiyyətin ideoloji, siyasi, iqtisadi baxımdan gələcək nəsillərə ötürülməsidir. Bu gün dünyamızda qloballaşma prosesləri gedir. Qloballaşma iqtisadi cəhətdən dövlətlərin bir-birinə daha sıx yaxınlaşması, informasiya mübadiləsinin sürətlənməsi, qlobal miqyaslı problemlərin həllində dövlətlərin əməkdaşlığı deməkdir. Qloballaşma milli mədəniyyətlərin aradan çıxması, milli-mənəvi dəyərlərin arxa plana keçməsi demək deyil. Bu gün Azərbaycan bir çox beynəlxalq təşkilatların üzvüdür. BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı kimi qurumlardakı fəaliyyətimiz, həmçinin bir çox dövlətlərlə ikitərəfli münasibətlərimiz Azərbaycanı dünyaya qovuşdurur, inteqrasiya prosesinə təkan verir. Amma dünyaya qovuşmaq Azərbaycan xalqının özünəməxsusluğuna zərər vurmamalıdır.

Vətəndaş həmrəyliyi ümummilli liderin müəyyən etdiyi prinsiplərdən biridir. Vətəndaş həmrəyliyi Azərbaycan cəmiyyəti üçün olduqca vacib prinsiplərdəndir. Çünki cəmiyyətdə sabitliyə nail olmasaq, demokratik dəyərlərə söykənməsək, xalqın milli-mənəvi dəyərlərinə, mentalitetinə uyğun fəaliyyətimizi həyata keçirməsək, inkişafa nail ola bilmərik. Azərbaycan cəmiyyətində vətəndaş həmrəyliyi xalqımızı daxildən birliyə çağıran məsələdir. Vətəndaş həmrəyliyi həm də azərbaycançılıq ideyası əsasında birləşmək deməkdir. Vətəndaş həmrəyliyinə Azərbaycanda faktiki surətdə nail olunub. Məhz Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycanda vətəndaş sülhünə nail olunmuşdur. Bu, mövcud prinsiplərdən biri kimi qalmalıdır. Heç kəs vətəndaş həmrəyliyinin pozulmasına gətirib çıxaran hərəkətlərə yol verməməlidir. Vətəndaş həmrəyliyinin pozulması, vətəndaş qarşıdurmasının yaranması Azərbaycan cəmiyyəti üçün təhlükələrə gətirib çıxara bilər. Tarixi təcrübəmizdən ibrət götürməliyik. Vətəndaş sülhü Heydər Əliyevin müəyyən etdiyi mühüm bir prinsip kimi Azərbaycan vətəndaşlarının daimi nəzərindədir və gələcəkdə daha da inkişaf etdirilməlidir.

Azərbaycan dövlətinin digər bir təməl prinsipi sosial ədalətdir. Cəmiyyətdə ədalətə nail olmadan ölkəni inkişaf yoluna çıxarmaq mümkün deyil. Ədalət Azərbaycan cəmiyyətinin, Azərbaycan xalqının təbiətinə, ruhuna uyğundur. Ta qədimdən Azərbaycan xalqı ədalətə tərəfdar olub, ədaləti müdafiə edib. Ədalətlilik prinsipi bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətdə də özünü göstərir. Ədalətlilik ölkənin sosial-iqtisadi inkişafından ədalətli şəkildə xalqa pay düşməsi, Azərbaycan dövlətinin milli sərvətlərdən əldə olunan

gəlirlərin insanlarımıza ədalətli şəkildə çatdırılmasıdır. Ədalətlilik, eyni zamanda, cəmiyyətdə bazar iqtisadiyyatının yaratdığı ziddiyyətlərin hansısa bir zümrəyə ziyan vurmasının qarşısının alınması deməkdir. Bu, Azərbaycan cəmiyyəti üçün olduqca əhəmiyyətli bir prinsipdir. Cəmiyyətdə ədalət olmasa, qarşıdurma qaçılmazdır. Bütün cəmiyyətlərin tarixi göstərir ki, ədalət prinsipi pozulduqda qarşıdurma meyilləri güclənir. Bu isə xaosa və anarxiyaya gətirib çıxara bilər. Ədalət prinsipinin təmin olunması islahatlardan keçir. Daimi islahatlar, inkişaf yolu ilə, həmçinin cəmiyyətdə insanların təbəqələşməsi fonunda müxtəlif siyasi və iqtisadi vasitələrlə sosial ədalətin təmin olunması bu gün ölkəmizdə uğurla gerçəkləşir. Sosial ədalət dedikdə, hər bir ailənin, hər bir vətəndaşın rifahının yaxşılaşdırılması, cəmiyyətin idarəçiliyində hər kəsin iştirakının təmin edilməsi, azad iqtisadi münasibətlərin təminatı və bu kimi digər məsələlər nəzərdə tutulur. Azərbaycan Prezidenti İlham Əliyevin siyasətində bunlar açıq şəkildə özünü göstərir. Prezident İlham Əliyev deyir: "Ölkəmizin qarşısında böyük vəzifələr durur. Bizim məqsədimiz Azərbaycanı inkişaf etdirmək, ölkəmizdə yaşayan hər bir insanın həyat şəraitini yaxşılaşdırmaqdır".

Cəmiyyətimizin söykəndiyi ideoloji prinsiplər sırasında respublika idarə üsulu, ölkənin idarəçiliyində xalqın iştirakı da əsas rol oynayır. Təsadüfi deyil ki, Azərbaycan Konstitusiyasında ən mühüm müddəa "Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır" tezisidir. Xalqın hakimiyyətin mənbəyi olması prinsipi respublika idarə üsulunun ən bariz nümunəsidir.

Ulu öndərin irəli sürdüyü əsas prinsiplər sırasında demokratiya da önəmli yerlərdən birini tutur. Demokratik dəyərlərə sədaqət Azərbaycan cəmiyyəti üçün əsas prinsiplərdən biridir. Ümummilli lider Heydər Əliyev Azərbaycanın demokratik dəyərlərə söykəndiyini və demokratiyaya daim sadiq olduğunu həmişə xüsusi olaraq vurğulayırdı. Heydər Əliyev həmişə qeyd edirdi ki, dövlətin inkişafı milli sərvətlərlə ölçülmür. Dövlət zəngin sərvətlərə malik ola bilər. Lakin dövlət əgər həmin sərvətlərə malik olub demokratik dəyərlərə söykənməsə, onun inkişafı müvəqqəti xarakter daşıyacaq. Dövlət o zaman inkişaf edə bilir ki, demokratik dəyərlərə söykənir. Bu barədə Prezident İlham Əliyev deyib: "Mən tam əminəm ki, əsl açıq demokratik cəmiyyəti ancaq maddi rifah əsasında qurmaq mümkündür. İqtisadi cəhətdən geridə qalmış ölkələrdə demokratik proseslər də geridə qalır. O ölkələr ki onlar iqtisadi cəhətdən güclüdürlər, orada sahibkarlıq inkişaf edibdir və azad sahibkarlıq böyük uğurlar qazanıbdır, - o ölkələrdə demokratiyanın inkişafı da çox yüksək zirvədədir. Ona görə iqtisadi islahatların davam etdirilməsi xalqın maddi rifahının yaxşılaşması, demokratik cəmiyyətin qurulması və formalaşması üçün başlıca şərtdir".

Heydər Əliyevin müəyyən etdiyi milli ideya Azərbaycan dövlətçiliyinin əsaslarıdır. Bu milli ideya ətrafında Azərbaycan xalqı gələcəyə doğru gedir, inkişaf edir. Milli ideya Azərbaycan xalqı üçün daimidir və Azərbaycanın daxili və xarici siyasətini müəyyənləşdirmək, iqtisadi inkişafını təmin etmək baxımından olduqca vacibdir.

Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin həyata keçiridiyi siyasət uğurla davam edir. Dövlət quruculuğu prosesi daimi xarakter daşıyır. Cəmiyyət inkişaf edir, müasir dünyamızda gedən prosesə uyğun olaraq Azərbaycanın sosial-iqtisadi həyatında, qanunlarında, insanların həyat tərzində, idarəçilikdə müvafiq dəyişikliklər həyata keçirilir. Cəmiyyətimiz indiki dövrün çağırışlarına uyğun olaraq yeniləşir, müasirləşir və müstəqil Azərbaycanın mövqeləri getdikcə möhkəmlənir.

Prezident İlham Əliyev Azərbaycanın qarşısında duran strateji vəzifələrdən danışarkən qeyd etmişdir ki, başlıca məqsədimiz sənayecə inkişaf etmiş ölkələrin sırasına daxil olmaqdır. Prezident deyir: "Biz ölkəmizi müasirləşdirməliyik, bütün cəhətlərdən - həm siyasi islahatlar, həm də iqtisadi islahatlar baxımından inkişaf etmiş ölkələrin səviyyəsinə çatdırmalıyıq. ...Bizim qarşımızda çox böyük perspektivlər var. Azərbaycan, sözün əsl mənasında, inkişaf etmiş ölkəyə çevirilməlidir".

Ölkə rəhbərinin dediyi bu fikirlər real həyatda öz əksini tapır. Bu gün modern Azərbaycan quruculuğu ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik prinsipləri əsasında uğurla davam edir.

“**Azərbaycan**”.-2011.-8 may.-N 99.-S.8.

# HEYDƏR ƏLİYEV VƏ PARLAMENTARİZM ƏNƏNƏLƏRİ

**Oqtay ƏSƏDOV,**
Azərbaycan Respublikası Milli Məclisinin Sədri

**"Heydər Əliyev tarixin böyük bir hissəsidir. Onun əməlləri, bütün təşəbbüsləri bir məqsəd daşıyırdı - Azərbaycan xalqına xidmət etmək, ölkəmizi gücləndirmək, müstəqilliyimizi möhkəmləndirmək, demokratik cəmiyyət qurmaq... Azərbaycanda bu siyasətin alternativi yoxdur".**

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Mübarizələrlə dolu şanlı tarixə malik Azərbaycan xalqının çağdaş dövlətçiliyinin təşəkkül tapmasında görkəmli dövlət xadimi Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti müstəsna yer tutur. Bu nadir düha bütöv bir xalqın müstəqillik məfkurəsini reallığa çevirməklə tarixi bir missiyanı uğurla yerinə yetirmiş fitri istedada malik siyasətçi və lider olduğunu bütün dünyaya nümayiş etdirmişdir. O özünün mütərəqqi dünyagörüşü ilə sabit dövlətçilik və müasir parlamentarizm ənənələrini formalaşdıraraq milli dəyərlər zəminində bugünkü dövlətçilik sistemimizin ideoloji-siyasi dayaqlarını yaratmışdır.

Heç də təsadüfi deyil ki, milli tariximizin Heydər Əliyev dövrü Azərbaycanın inkişafında keyfiyyətcə yeni bir eranın başlanğıcı kimi dəyərləndirilir. Dövlətçiliyimizin ən ağır günlərində, mürəkkəb siyasi şəraitdə xalqımızın böyük oğlunun göstərdiyi qətiyyət və iradə onun sonsuz vətən sevgisinin parlaq nümunəsidir. Heydər Əliyev irsi xalqımızın dövlətçilik və azərbaycançılıq şüurunu, ictimai-siyasi fikrin ən ümdə keyfiyyətlərini özündə ehtiva edir. Onun müasir dövlətçilik konsepsiyası tarixi ənənələri və bəşəri dəyərləri özündə birləşdirən yeni inkişaf modeli kimi bugünkü Azərbaycanın simasında öz əksini tapmışdır.

Heydər Əliyev uzaqgörən siyasətçi olduğunu hələ ölkəyə rəhbərlik etdiyi 1969-1982-ci illərdə sübut etmişdir. Həmin illərdə Azərbaycanda dövlət quruculuğunda, iqtisadiyyatın, elmin, mədəniyyətin, bir sözlə, həyatın müxtəlif sahələrində böyük nailiyyətlər qazanıldı. Məhz bu dövrdə milli və mənəvi dəyərlərin qorunub saxlanılmasında, o cümlədən parlamentarizm ənənələrinin inkişafı istiqamətində əməli addımlar atıldı, məqsədyönlü siyasət sayəsində xalqın milli oyanışı üçün əlverişli şərait formalaşdı.

Sonralar - 80-ci illərin sonunda isə SSRİ adlı böyük bir məkanda baş verən ictimai-siyasi proseslər və xalqımızın azadlıq mücadiləsi nəticəsində Azərbaycan dövlət müstəqilliyini bərpa etdi. Lakin çoxsaylı problemlərlə üzləşmiş Azərbaycan XX əsrin əvvəllərində mövcud olmuş Xalq Cümhuriyyətinin aqibətini yaşamağa çox yaxın idi. Bütün çətinliklərə rəğmən xalqımızın xoşbəxtliyi onda idi ki, bu dövrdə onun Heydər Əliyev kimi milli lideri var idi.

Azərbaycanlılar öz tarixinin müəyyən dönəmlərində müstəqil dövlət qurmağa müvəffəq olmuşlar. Heç də təsadüfi deyil ki, müsəlman Şərqində parlament mədəniyyətinin əsası da məhz Azərbaycanda qoyulmuşdur. 1918-ci ildə Şərqdə Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi dövlətçilik tariximizin ən yaddaqalan dövrlərindən birinin başlanğıcı idi. Həmin dövrdə demokratik dövlət quruculuğu, təhsil, mədəniyyət, iqtisadiyyat sahələrində atılmış addımlar cümhuriyyətin əsas fəaliyyət istiqamətlərindən idi. Şərqdə ilk dəfə qadınlara seçki hüququ verən də məhz Azərbaycan xalqının qurduğu cümhuriyyət olmuşdur. Ulu öndər belə bir fikri vurğulayırdı ki, 1991-ci ildə dövlət müstəqilliyini bərpa edən xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli fəaliyyətinin zəngin ənənələrindən istifadə etmişdir.

Azərbaycanda parlamentarizm ənənələrinin inkişafına nəzər saldıqda görürük ki, hələ XX əsrin əvvəlində Rusiya imperiyasında ilk parlamentin formalaşmasına Azərbaycan xalqı da öz töhfəsini vermişdir. Rusiyanın dövlət dumalarına seçilmiş azərbaycanlı deputatların, demək olar ki, hamısı milli təəssübkeşliyi özünün həyat amalı hesab edən ziyalılar idi.

Sonrakı dövrdə Xalq Cümhuriyyəti parlamenti cəmi 17 ay fəaliyyət göstərməsinə baxmayaraq, xalqımızın dövlətçilik və milli şüurunun formalaşmasında mühüm rol oynadı, ölkə həyatının ən müxtəlif sahələrinə aid qanunvericilik aktları qəbul etdi. Müəyyən səhvlərə baxmayaraq, bu qurum ölkədə milli parlamentarizmin əsasını qoydu və bütün dünyaya nümayiş etdirdi ki, xalqımız hüquqi dövlət qurmağa qadirdir. Ulu öndər qeyd edirdi ki, bugünkü Milli Məclis Xalq Cümhuriyyətinin yaratdığı parlamentin varisidir.

2008-ci ildə parlamentin 90 illiyi ilə əlaqədar keçirilən Milli Məclisin yubiley iclasında ümummilli liderin parlamentarizm ənənələrinin inkişafının dövlətçilik baxımından əhəmiyyəti barədə fikirləri dəfələrlə vurğulanmışdır.

Heydər Əliyev çağdaş Azərbaycan dövlətinin qurucusu olmaqla yanaşı, həm də haqlı olaraq, müasir Azərbaycan parlamentinin banisi sayılır. Sovet dövründə Azərbaycanda parlamentin qəbul etdiyi qanunlar kommunist partiyasının ideoloji məqsədlərinə xidmət edirdi. Buna baxmayaraq, Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi ilk dövrdə hakimiyyət orqanlarının, o cümlədən parlamentin işini xalqın iqtisadi, mədəni tərəqqisinə, milli dirçəliş siyasətinin reallaşmasına yönəldə bildi.

Bu dövrdə Azərbaycan parlamenti Heydər Əliyevin rəhbərliyi ilə respublikada aparılan quruculuq işlərinin hüquqi bazasının yaradılmasında mühüm rol oynadı. Ulu öndər parlamentin cəmiyyətin həyatındakı rolunu yaxşı bilir, Azərbaycan SSR Ali Sovetinin deputatı və ölkənin rəhbəri kimi ali qanunvericilik orqanı ilə sıx əlaqədə fəaliyyət göstərirdi. O, parlamentdə bu dövrə təsadüf etmiş IX, X və XI beşilliklərin proqramlarının təsdiq olunmasında və hər il respublika büdcəsinin qəbulunda yaxından iştirak edir, parlamentarizm ənənələrinin bərpası və inkişafı üçün əlindən gələni əsirgəmir, bu məsələ ilə bağlı tövsiyələrini verirdi. Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin və SSRİ Ali Sovetinin tribunalarından müdrikliklə istifadə edir, deputat qrupunun Moskvadakı fəaliyyətini Azərbaycanın mənafeyi baxımından məharətlə istiqamətləndirirdi.

Bu siyasətin məntiqi nəticəsi kimi kommunist ideologiyasının tüğyan etdiyi bir vaxtda Heydər Əliyev Azərbaycana demokratik və azad düşüncə tərzi, milli özünüdərk duyğusu gətirdi. O dövrdə keçmiş İttifaqın aparıcı təhsil ocaqlarında gənclərimiz lazımi ixtisaslara yiyələndilər, milli kadr korpusu formalaşdı. Həmin illərdə, sonralar SSRİ rəhbərliyində təmsil olunduğu vaxtlarda Heydər Əliyev Azərbaycanı yüksəkliklərə qaldırmaqla özü də dünyanın görkəmli siyasi və dövlət xadimlərindən birinə çevrildi. Azərbaycan Prezidenti İlham Əliyev tariximizin bu dövrünü belə şərh edir: "O illərdə Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya istiqamətini milli özünüdərkin güclənməsinə imkan verən sürətli inkişaf strategiyası təşkil etmişdir".

Əslində, Heydər Əliyevin 30 ildən artıq siyasi hakimiyyət dövrü tariximizin ən parlaq səhifəsini, ölkənin inkişaf mərhələsini təşkil edir. Azərbaycanda müstəqil dövlət təsisatlarının yaradılması, vətəndaş cəmiyyətinin formalaşdırılması və yeni iqtisadi kursun müəyyənləşməsi məhz ulu öndərin şərəfli adı ilə bağlıdır. Bu baxımdan Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanın Ali Sovetinə sədr seçilməsi ölkənin ən yeni tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu.

Bu dövrdə öz dövlət müstəqilliyini yeni elan etmiş Azərbaycanın qarşısında mühüm tarixi vəzifələr dururdu. Təəssüf ki, o dövrkü iqtidar baş verən proseslərdən düzgün nəticə çıxara bilmədi. Torpaqlarımız Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. Dağlıq Qarabağ məsələsi erməni ideoloqları tərəfindən süni şəkildə şişirdilərək beynəlxalq arenaya çıxarıldı. AXC-Müsavat cütlüyünün bir illik hakimiyyəti dövründə ölkə anarxiyaya sürüklənir, ekstremist meyillər getdikcə güclənirdi. Azərbaycan vətəndaş müharibəsi kimi real təhlükənin bir addımlığında idi.

Belə bir vaxtda Heydər Əliyevin ölkə parlamentinə sədr seçilməsi - onun siyasi hakimiyyətə yenidən qayıdışı xalqda gələcəyə ümid yaratdı. Sonrakı proseslər göstərdi ki, bu qayıdış müstəqillik tariximizdə keyfiyyətcə yeni siyasi bir eranın başlanğıcı idi.

Heydər Əliyev müdrik dövlət xadimi kimi parlamentin milli dövlətçilik sistemində yerini və rolunu lazımınca dəyərləndirir, ölkə qarşısında duran məsələlərin həllində qanunverici orqanın imkanlarından maksimum yararlanmaq nümunəsi göstərirdi.

Ali Sovetin Sədri kimi ulu öndər ilk gündən parlamentarizm ənənələrinə sadiq qalaraq aşkarlıq prinsipinə üstünlük verdi. Milli Məclisin iclasları, mətbuat konfransları, respublika əhəmiyyətli müşavirələr birbaşa yayımla televiziya ekranlarına verildi. Ölkədəki vəziyyət olduğu kimi xalqa çatdırıldı. İctimai-siyasi həyatdakı gərginliyin aradan qaldırılması üçün lazımi tədbirlər görülməyə başlandı. Ulu öndər parlamentarizm ənənələrinin inkişafına müstəqilliyimizin qorunub saxlanması, daha da möhkəmlənməsi prizmasından yanaşır, bu sahəni dövlətçilik məfkurəsinin ayrılmaz tərkib hissəsi hesab edirdi.

Heydər Əliyevin 1993-cü il iyunun 15-dən oktyabrın 10-dək Ali Sovetə rəhbərlik etdiyi dövrdə parlamentarizm ənənələri yeni nəfəs, yeni qüvvə aldı. Ordu quruculuğu sahəsində mühüm qərarlar qəbul edildi. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailəsinə edilən güzəştlər haqqında" qanun qəbul olundu. Konstitusiyada və müxtəlif hüquqi sənədlərdə dəyişikliklər edildi. Ümumiyyətlə, bu dövrdə 120-dən artıq qanun və qərar qəbul olundu. Bütün ölkə əhalisini narahat edən məsələlərin parlamentdə ilk növbədə müzakirə edilməsi adi hala çevrildi.

Heydər Əliyev bu dövrdə əhalinin döyüş ruhunu qaldırmaq, müharibə dövrünə uyğun təbliğat aparmaq, qanunsuz silahlı dəstələri zərərsizləşdirmək üçün lazımi tədbirlər görür, ölkədəki vəziyyət barədə fikirlərini tez-tez xalqla bölüşürdü. O, parlamentin sədri kimi Azərbaycanın strateji maraqları əsasında ölkənin yeni xarici siyasət konsepsiyasını, onun beynəlxalq münasibətlər sistemində yerini müəyyənləşdirdi. İlk növbədə AXC hakimiyyətinin bu sahədə buraxdığı kobud səhvlər qısa vaxtda aradan qaldırıldı.

Ali Sovetin sədri mədəniyyətin, elmin və təhsilin inkişafına da böyük diqqət yetirir, alimlərlə, gənclərlə görüşlər keçirir, onlarla ölkənin gələcəyi barədə fikir mübadiləsi aparırdı.

Cəmi 4 ay Ali Sovetin Sədri vəzifəsində çalışsa da, ulu öndər bu qısa müddətdə parlamentin ruhunu kökündən dəyişdi, Milli Məclisə siyasi mədəniyyət gətirdi. Onun iclası aparmaq tərzi, fikirlərini dəqiq əsaslandırması, çıxışların məğzini tutmaq bacarığı, qiymətli fikirləri ümumiləşdirmək qabiliyyəti özlüyündə parlamentin üzvləri üçün yeni bir örnək, əsl parlamentarizm məktəbi idi.

Heydər Əliyev Prezident seçildikdən sonra da parlamentlə sıx əlaqə saxlamış, yüksək səviyyəli Prezident-parlament münasibətlərinin dövlətçiliyimizin daha da möhkəmlənməsinə, xalqın rifah halının yaxşılaşmasına xidmət etməsi üçün səylərini əsirgəməmişdir.

Ümummilli liderin əsasını qoyduğu inkişaf strategiyası və onun milli məfkurəsi tezliklə Azərbaycanı davamlı inkişaf yoluna çıxartdı. Bu dövrdə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi, ölkəmiz Avropa Şurası kimi mötəbər beynəlxalq qurumların tamhüquqlu üzvü oldu. Müstəqil Azərbaycanın birinci çağırış Milli Məclisinə seçkilər keçirildi, bələdiyyə institutu yaradıldı, həyatın bütün sahələrində köklü islahatlar aparıldı. Onun təşəbbüsü ilə parlamentdə ilk kövrək addımlarını atmaqda olan müstəqil dövlətimiz üçün həyati əhəmiyyətli qanunlar qəbul olundu. Azərbaycanın təşəbbüsü və fəal iştirakı ilə bütöv bir regionun iqtisadi simasını dəyişə biləcək Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi neft və qaz kəmərlərinin çəkilişinə başlandı.

Siyasi islahatlar cəsarətlə davam etdirilirdi. 2002-ci ilin avqustunda keçirilən referendumda parlamentə seçkiləri daha da demokratikləşdirmə məqsədilə seçkilərin birmandatlı dairələr üzrə aparılması qaydası müəyyən edildi. Milli Məclisin səlahiyyətləri dəqiqləşdirilərək ona ombudsmanın seçilməsi, Apelyasiya Məhkəməsinə hakimlərin təyin olunması hüququ verildi.

Ulu öndər hüquqi dövlət quruculuğu prosesində parlamentlə sıx əlaqə şəraitində böyük uğurlara nail oldu. Statistikaya müraciət etsək, görərik ki, 1993-cü il oktyabrın 10-dan 2002-ci il dekabrın 30-dək Milli Məclis tərəfindən qəbul edilmiş 1715 qanun və qərardan 975-i Prezident Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmişdir.

Heydər Əliyevin əsasını qoyduğu milli inkişaf strategiyası bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Keçid dövrünü arxada qoymuş ölkəmizin iqtisadi inkişaf modeli bütün dünyada təqdir olunur. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi yeni inkişaf konsepsiyası ölkəmiz qarşısında böyük perspektivlər açır. Keyfiyyətcə yeni mərhələdə ölkə Prezidenti vətəndaş cəmiyyətinin yaradılmasını, demokratikləşmə prosesinin möhkəmlənməsini Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərt hesab edərək demişdir: "Siyasi və iqtisadi islahatların davam etdirilməsi zamanın tələbidir. Əgər biz doğrudan da müasir, güclü ölkə yaratmaq istəyiriksə, bunu etməliyik. Bu işdə həm dövlətin üzərinə böyük vəzifələr düşür, eyni zamanda, Milli Məclisin üzərinə də böyük məsuliyyət düşür. Biz birlikdə buna nail olmalıyıq".

Dövlətçilik sistemində mühüm yer tutan Azərbaycan parlamenti dövlət başçısı tərəfindən ölkədə aparılan quruculuq işlərinə, islahatların həyata keçirilməsinə öz səlahiyyətləri çərçivəsində dəstək verir. Azərbaycanda çox qısa zaman kəsiyində sivil ölkələrə məxsus sosial ədalət prinsipinə söykənən müasir cəmiyyətin yaradılmasına Milli Məclis də öz töhfəsini vermişdir.

Siyasi sistemin dünya standartları səviyyəsinə yüksəlməsi ölkənin iqtisadi qüdrətinin artması və demokratik proseslərin dərinləşməsi məqsədilə yeni qanunların qəbulu və qüvvədə olan aktların təkmilləşdirilməsi həmişə Milli Məclisin diqqət mərkəzində olmuşdur. Parlamentin ictimai-siyasi həyatda baş vermiş köklü dəyişiklikləri nəzərə alaraq 2009-cu ilin martında Konstitusiya islahatları ilə bağlı referendum keçirilməsi barədə qərarı bunun bariz nümunəsidir.

Hazırda müstəqil Azərbaycanın bütün sahələr üzrə qanunvericilik bazası mövcuddur. Qəbul olunmuş Konstitusiya qanunları, məcəllələr, qanunlar, təsdiq edilmiş konvensiyalar, sazişlər cəmiyyət və dövlət həyatında yaranan münasibətləri tənzimləməyə xidmət edir. Qanunvericilik fəaliyyətində bəşəri dəyərlər milli dəyərlərimizlə üzvi surətdə əlaqələndirilir.

Ötən illərdə Milli Məclis parlamentarizm ənənələrini inkişaf etdirərək qanunvericilik sistemini daha da təkmilləşdirmək istiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir. Parlamentdə qəbul olunmuş sənədlərin əhəmiyyətli bir hissəsi qanunvericilik təşəbbüsü ilə ölkə Prezidenti tərəfindən Milli Məclisin müzakirəsinə təqdim edilmişdir. İlham Əliyev hələ Azərbaycan parlamentinin deputatı olduğu dövrdə, 1995-2003-cü illərdə Milli Məclisin qanun yaradıcılığı işində yaxından iştirak etmiş, qanunvericiliyimizin Avropa standartları səviyyəsinə yüksəlməsinə, parlamentin beynəlxalq əlaqələrinin genişlənməsinə öz layiqli töhfəsini vermişdir. Ulu öndərin siyasi varisi kimi İlham Əliyev parlamentarizm ənənələrinə yeni çalarlar gətirərək bu mühüm dövlət institutunun nüfuzunu beynəlxalq miqyasda təsdiqləməyə nail olmuşdur.

İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətimizin rəhbəri olduğu dövrdə formalaşmış parlament diplomatiyası ənənəsi bu gün deputatlarımız tərəfindən nüfuzlu beynəlxalq qurumlarda uğurla davam etdirilir.

Hazırda Milli Məclis Parlamentlərarası İttifaqın, Avropa Şurası Parlament Assambleyasının, MDB Parlament Assambleyasının, ATƏT Parlament Assambleyasının, Qara Dəniz İqtisadi Əməkdaşlığı Təşkilatı Parlament Məclisinin, GUAM Parlament Assambleyasının, İslam Konfransı Təşkilatı Parlament Məclisinin, Türkdilli Ölkələrin Parlament Assambleyasının tamhüquqlu, NATO Parlament Assambleyasının isə assosiativ üzvüdür. Milli Məclis Avropa Parlamenti, Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində yaradılmış Avronest parlament təşkilatı və digər mötəbər beynəlxalq qurumlarla da sıx əməkdaşlıq edir. Deputatlarımız mütəmadi olaraq bu təşkilatların işində yaxından iştirak edir, Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətləri dünya ictimaiyyətinə çatdırırlar.

Beynəlxalq əməkdaşlıq müstəvisində aparılan bu siyasət artıq öz bəhrəsini verməkdədir. Heç də təsadüfi deyil ki, Avropa Parlamenti, o cümlədən İtaliya və Almaniya kimi nüfuzlu dövlətlərin qanunvericilik orqanları Cənubi Qafqazla bağlı qəbul etdikləri qətnamələrdə Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Azərbaycanın haqlı mövqeyini dəstəkləmişlər. Bütün bunlar Azərbaycan parlament diplomatiyasının uğurlarından xəbər verir.

Parlamentdə 70-dən çox ölkənin qanunvericilik orqanı ilə əlaqələr üzrə işçi qrupları yaradılmışdır. Bu qruplar qanun yaradıcılığı sahəsində təcrübə və informasiya mübadiləsində, parlamentin beynəlxalq əlaqələrinin inkişafında əhəmiyyətli rol oynayırlar.

Azərbaycan Prezidenti deputatlara günün tələbləri səviyyəsində iş şəraitinin yaradılması məqsədilə Milli Məclisdə deputat köməkçisi institutunun təsis edilməsinə böyük dəstək vermişdir. Bu isə özlüyündə Prezident İlham Əliyevin dövlətçilik fəlsəfəsində mütərəqqi meyillərin üstünlük təşkil etməsi ilə bağlıdır.

Ölkə başçısının təşəbbüsü və qayğısı ilə Milli Məclisin siması tamamilə yenilənmişdir. Parlamentin binası və maddi-texniki bazası yenidən qurulmuşdur. Deputatların səmərəli fəaliyyəti üçün yeni korpus istifadəyə verilmişdir. Milli Məclisə gələn xarici qonaqlar parlamentdə deputatlar üçün yaradılmış şəraitə heyran qaldıqlarını dəfələrlə vurğulamışlar. Burada müasir İclas zalı, ümummilli lider Heydər Əliyevə həsr olunmuş Xatirə zalı, zəngin kitabxana vardır. Milli Məclisdə müasir informasiya texnologiyaları uğurla tətbiq olunmaqdadır. Elektron qanunvericilik bazasının yaradılması bu sahədə mühüm nailiyyətlərdəndir.

Bir sıra qabaqcıl ölkələrin onilliklər boyu keçdiyi mərhələni qısa zamanda keçən Azərbaycanda 2010-cu ilin noyabrında keçirilən parlament seçkiləri xalqımızın Heydər Əliyev ideallarına yüksək inamının bariz nümunəsi oldu. Milli Məclisə azad və demokratik seçkilərin keçirilməsi son illərdə qazanılmış nailiyyətlərin qorunub saxlanılması, mütərəqqi qanunların qəbulu baxımından mühüm əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev son parlament seçkilərini ölkənin demokratik, hüquqi və siyasi inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi dəyərləndirmişdir: "Mən əminəm ki, yeni tərkibdə Milli Məclis ölkəmizin gələcək inkişafı üçün dəyərli töhfələrini verəcək, Milli Məclis tərəfindən qəbul ediləcək qanunlar ölkəmizin demokratik inkişafı üçün gözəl şərait yaradacaqdır".

IV çağırış Milli Məclisin hazırkı tərkibi belə deməyə əsas verir ki, parlament qarşıdakı dövrdə bu missiyanın öhdəsindən layiqincə gələcəkdir.

Bu gün Azərbaycanda hakimiyyətin icra və qanunverici orqanları arasında konstruktiv əməkdaşlığın mövcudluğu, əsası ümummilli lider tərəfindən qoyulmuş yüksək səviyyəli Prezident-parlament münasibətlərinin uğurlu davamı vahid dövlət siyasətinin həyata keçirilməsində mühüm rol oynayır. Parlamentarizm ənənələrinin inkişafını Azərbaycanın gələcəyi baxımından önəmli hesab edən ölkə başçısı bunu sivil dövlətə xas mühüm amil kimi dəyərləndirib: "Azərbaycanda siyasi mübarizə sivil qaydalarla tənzimlənir. Əminəm ki, yeni tərkibdə Milli Məclis bu gözəl ənənələrini daha da möhkəmləndirəcəkdir".

Heç şübhəsiz, IV çağırış Milli Məclis ölkə rəhbərinin bu tövsiyəsinə əməl edərək qarşıdakı illərdə Azərbaycanda demokratik proseslərin daha da dərinləşməsinə, hüquqi dövlət quruculuğuna, ölkə iqtisadiyyatının inkişafına, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə öz töhfəsini verməklə müasir parlamentarizm tariximizin yeni, daha parlaq səhifəsini yazacaqdır.

**"Azərbaycan".-**2011.-8 may.-N 99.-S.6.

## HEYDƏR ƏLİYEV VƏ İSTİQLALIMIZIN 20 İLİ

**Musa QASIMLI,**
Milli Məclisin deputatı,
tarix elmləri doktoru, professor

**"Doğrudur, 22 il bundan öncə biz bilmirdik ki, Azərbaycan müstəqil dövlət olacaqdır. Lakin mən o vaxt Azərbaycanın müstəqilliyi fikri ilə yaşayırdım".**

**Heydər Əliyevin gənclərin**
**nümayəndələri ilə görüşdə çıxışından**
**22 sentyabr 1993-cü il**

**Məlum olduğu kimi, dünyada xalqlar çox olsa da, müstəqil dövləti olanların sayı dəfələrlə azdır.Xalqın milli dövləti və dövlətçilik tarixi özü-özündən yaranmır. Onu xalq və xalqa rəhbərlik edən böyük dövlət adamları fəaliyyətləri ilə yaradırlar. Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən sonra ötən 20 ilin mahiyyətini dərindən dərk etmək üçün yaxın tarixi keçmişə, böyük dövlət və siyasi xadim Heydər Əliyevin fəaliyyətinə nəzər yetirmək həm praktik siyasət, həm də tarixi, elmi-nəzəri baxımdan böyük əhəmiyyət kəsb edir. Yaşadığı dövrdən uzaqlaşdıqca görkəmli bir dövlət adamı olaraq böyüklüyü daha yaxşı görünən Heydər Əliyevin müstəqil dövlətçilik baxışlarını və fəaliyyətinin bütün tərəflərini heç şübhəsiz bir məqalədə araşdırmaq mümkün deyildir. Bunun üçün dərin elmi-tədqiqat işlərinin aparılmasına və əsərlərin yazılmasına ehtiyac vardır. Bu məqalədə Azərbaycanın dövlət müstəqilliyinin əsaslarının, təməl prinsiplərinin yaradılmasında, milli dövlətimizin qurulmasında Heydər Əliyevin fəaliyyətinə nəzər yetirilir.**

Dünya tarix elmində dövlət xadimlərinin və siyasi xadimlərin fəaliyyətinə bir sıra ümumi qəbul olunmuş elmi metodoloji meyarlar əsasında qiymət verilir. Məlum oldyğu kimi, tarixi şəxsiyyət konkret məkan və zaman daxilində yaşadığından onun fəaliyyətinə də məhz həmin baxımdan yanaşmaq tarixi tədqiqatların ciddi metodoloji tələblərindən biridir. Ancaq zamandan uca olanlar, xalqının bir neçə on və bəzən də yüz illiklər inkişafı yolunu öncədən görərək müəyyənləşdirənlər, ömrünü xalqının tərəqqisi üçün başlıca amil olan dövlətinin qüdrətlənməsinə həsr edənlər dahilər olurlar. Dövlət xadimlərinə özlərindən sonra hakimiyyətə gələn şəxslərin edəcəkləri ilə deyil, özlərindən əvvəlkilərin fəaliyyəti ilə müqayisədə qiymət verilir. Bu zaman belə bir suala cavab axtarılır: dövlət rəhbəri ölkəsini, xalqını əvvəlki rəhbərlərlə müqayisədə nə qədər irəli apara bildi? Nələr ilə yadda qaldı? Onun siyasəti ölkəsini, xalqını gücləndirdi, yoxsa zəiflətdi? Heç şübhəsiz, dövlətini qüdrətli etməyə çalışan dövlət rəhbərləri də məhz özlərindən əvvəlki güclü dövlət xadimlərinin fəaliyyətinə, təcrübəsinə müraciət edirlər. Zəif, iradəsiz dövlət rəhbərlərini tarix səhnəsindən silmək mümkün olmasa da, onların təcrübəsinə, hakimiyyət illərinə adətən müraciət etmirlər. Bununla da güclü rəhbərlər xalqı və dövləti mövcud olduqca daim yaşayırlar. Məhz həmin meyarlar baxımından Heydər Əliyevin fəaliyyətinə diqqət yetirmək, bir sıra suallara dərin elmi əsaslandırılmış və məntiqi cavab vermək yaxın tariximizi doğru bilmək, qiymətləndirmək və nəticələr çıxarmaq baxımından əhəmiyyətlidir: Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra ötən 20 ilin zirvəsindən dövlət xadimi və siyasi xadim olaraq Heydər Əliyevin fəaliyyətinə necə qiymət vermək olar və həmin fəaliyyətdən hansı ibarət dərsləri almaq olar? Regionun və dünyanın geosiyasətinin dəyişməsinə təsir edən dövlət xadimi kimi Heydər Əliyevin xarici siyasət və beynəlxalq fəaliyyəti necə görünür? Bu məqalə qətiyyən təbliğat və ideoloji məqsəd daşımır, tarixi şəxsiyyətin fəaliyyətinə sırf tarixçi baxışıdır.

### İstiqlalımızın təməlləri

Müsəlman Şərqinə cümhuriyyət məfkurəsini və idarə üsulunu gətirən, müstəmləkə zülmü altında inləyən xalqlara nicat yolunu göstərərək qarşılarında müstəsna xidmətləri olan xalqımızın yaratdığı Azərbaycan Xalq Cümhuriyyəti bolşevik Rusiyasının istilasına məruz qaldıqdan sonra milli dövlət süquta uğradı. Azərbaycan SSR yaradıldı. Müstəqil dövlətçiliyin atributları düşünülmüş şəkildə məhv edilməyə başlandı. XX əsrin 20, 30 və 40-cı illəri sovet dövlət quruculuğu adı altında Azərbaycanın mərkəzə daha çox bağlanması, milli ədəbiyyatın, milli ruhlu ziyalıların məhv edilməsi, amansız təqiblər və repressiyalar ilə yadda qaldı. Azərbaycan rəhbərliyində təmsil olunan şəxslər arasında intriqalar, mərkəzə şikayət məktublarının göndərilməsi

respublikaya olan mənfi münasibəti daha da artırırdı. Mərkəz Azərbaycanı daim sıxırdı. Sovet lideri Stalinin ölümündən sonra ölkədə nisbi yumşalma baş versə də, həmin yumşalmadan milli məsələlərin həlli üçün lazımınca istifadə edilə bilmədi. Azərbaycan yenidən sıxışdırılmağa başlandı.

1969-cu ildən sonra vəziyyət dəyişdi. Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə respublikaya olan münasibət tədricən yaxşılaşdı. Azərbaycanın gələcək istiqlalı üçün lazım olan ilkin maddi və mənəvi şərtlər məhz sovet sistemi şəraitində yetişdi. Respublikada sosial-iqtisadi, mədəni inkişafa, müstəqilliyinin maddi təməllərinin formalaşdırılmasına xüsusi diqqət yetirildi.

Dövlət müstəqilliyi üçün tələb olunan mənəvi amillərin formalaşması üçün addımlar atıldı. Azərbaycanı geri atan, xalq haqqında mərkəzdə mənfi rəy yaradan intriqalara son qoyuldu. Azərbaycanda hakimiyyətin qanadları arasında yekdillik, xalq ilə hakimiyyət arasında birlik yaradıldı. Milli kadrların hazırlanmasına və yerləşdirilməsinə, ana dilindən istifadəyə üstünlük verildi. İstiqlal məfkurəsini əsər və düşüncələrində daşıdıqları üçün əvvəlki illərdə təqib olunmuş alim, şair, yazıçı və jurnalistlər azad nəfəs aldılar. Belə şəxsləri mərkəzin cənginə verməyən Heydər Əliyev bəzən onları yüngülcə tənqid etsə də, az sonra yüksək fəxri adlar, vəzifələr verərək qoruyur və toxunulmaz edirdi. Tarixi , mədəni və ədəbi irsin qorunmasına xüsusi qayğı göstərildi. O dövrdə hamının ümimi vətəni hesab edilən SSRİ-nin bir guşəsindən - uzaq Sibirdən böyük mütəfəkkir Hüseyn Cavidin məzarının işlədiyi Bakıya deyil, doğulduğu Naxçıvana köçürülməsinin dərin mənası var idi. Heydər Əliyev Azərbaycanın bir guşəsini ümumi, kosmopolit vətəndən üstün tuturdu. Bu, milli köklərə bağlılığın nümunəsi idi. Cavidin məzarının köçürülməsi təkcə tarixi, ədəbi irsin mühafizəsinə göstərilən qayğı deyildi, şair, yazıçı, jurnalist və alimlərə qorxmamağa, çəkinməməyə, yazıb yaratmağa bir çağırış idi. Bununla o, acı tarixi keçmişə qayıdışın mümkün olmadığına işarə edirdi. Bu, misli bərabəri olmayan, gələcəyə hesablanmış fəaliyyət, tarixi bir addım idi.

Sonralar çıxışlarının birində Heydər Əliyev deyirdi: "Doğrudur, 22 il bundan öncə biz bilmirdik ki, Azərbaycan müstəqil dövlət olacaqdır. Lakin mən o vaxt Azərbaycanın müstəqilliyi fikri ilə yaşayırdım".

**Bakıdan Moskvaya**

1982-ci ilin sonlarında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi siyasi bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini seçilməsi ilə Heydər Əliyevin həyat və fəaliyyətinin Moskva dövrü başlayır. Heydər Əliyevin Moskvada rəhbər vəzifələrə çəkilməsi, dünyanı lərzəyə salan sovet imperiyasını idarə edən şəxslərdən biri olması bir tərəfdən, onun yüksək intellektual səviyyəsi, dövlət idarəçilik bacarığı və qabiliyyəti, Əfqanıstana müdaxilədən sonra müsəlman dünyasında itirilmiş sovet nüfuzunu bərpa etmək niyyətləri ilə bağlı idisə, digər tərəfdən, xarici ölkələrdə nəşr edilmiş əsərlərdə yazıldığı kimi, onun Azərbaycandan uzaqlaşdırılması, mərkəzdə daha yaxın nəzarət altında saxlanılması ilə əlaqədar idi. Çünki, mərkəzdə belə hesab edirdilər ki, Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan tam müstəqilliyə hazırlanmışdır, onun yalnız formal elan edilməsi qalır. Bunun qarşısını Heydər Əliyevi vəzifədən uzaqlaşdırmaqla almaq ağır nəticələrə gətirə bilərdi. Onu Moskvada ciddi nəzarət altında saxlamaqla müstəqilliyə gedən yolda əngəllər yaratmaq olardı.

Heydər Əliyevdən sonra hakimiyyətə gələn Azərbaycan rəhbərləri həmin xətti yerinə yetirə, respublikanı irəli apara bilmədilər. Azərbaycan geriyə getdi. SSRİ-də hakimiyyət olimpini ələ keçirən M.Qorbaçov türk, müsəlman respublikalarının L.Brejnev dövründə kifayət qədər irəli getdiklərini, dövlət müstəqilliklərini elan etməyə hazır olduqlarını düşünərək sovet rəhbərliyində olan türk dövlət xadimlərinə etinasızlıq göstərərək onları vəzifələrindən uzalqlaşdırdı, xalqlarını isə cəzalandırmaq yolunu tutdu. Heydər Əliyev də vəzifələrindən uzaqlaşdırıldı. Bundan sonra Azərbaycan ağır günlərə düşdü. Ermənistan əsassız ərazi iddiaları ilə Azərbaycanın daxili işlərinə qarışmağa və təcavüzə başladı. Ermənistanda tarixi torpaqlarında yaşayan azərbaycanlılar qovularaq qaçqına çevrildilər. Hakimiyyət bütün bunların qarşısını almaq iqtidarında deyildi. Belə bir vəziyyət xalqın taleyində, problemlərinin həllində güclü dövlət rəhbərinə nə qədər böyük ehtiyac olduğunun göstəricisi idi. Ancaq həmin dövrdə Azərbaycanda belə bir rəhbər çatışmırdı.

**Dönüş anı**

SSRİ dağılarkən Azərbaycan ağır bir vəziyyətdə idi. Ermənistanın təcavüzü davam edir, Azərbaycanda xaos hökm sürürdü. Sovet rəhbərliyi Azərbaycan xalqını cəzalandırmaq məqsədi ilə 20 Yanvar qırğınını törətdi. Bu zaman heç bir vəzifə daşımayan Heydər Əliyev xalqının yanında oldu. O, sovet rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi qanlı 20 Yanvar hadisəsindən dərhal sonra Moskavadakı Azərbaycan daimi nümayəndəliyinə gəlib bəyanat verərək onu ittiham etdi. Bu, Heydər Əliyevin gələcək siyasi və dövlətçilik

fəaliyyətində yeni, milli dövlətçilik zirvəsinə aparan yolun başlanğıcı idi. Onun bu hərəkəti yüz minlərlə insana bir nümunə oldu. 20 yanvardan sonra xalq mərkəz ilə yolunun bir olmadığı qənaətinə gəldi. Bu, bir dönüş anı idi. Artıq Azərbaycan xalqının dövlət müstəqilliyini bərpa etməsindən başqa yolu qalmırdı. Azərbaycan istiqlalın bərpasının astanasında idi.

**Moskvadan Naxçıvana. Müstəqil Azərbaycan dövlətçiliyinin bel sütunu**

Moskvada sovet rəhbərliyinin sərt nəzarəti altında yaşamaq çətinləşdiyindən Heydər Əliyev Azərbaycana döndü. Əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamalı oldu. Bununla da onun fəaliyyətinin Naxçıvan mərhələsi başladı. Heydər Əliyevin bəyanat verərək kommunist partiyası sıralarını tərk etməsi minlərlə insana bir nümunə oldu. Ermənistanın blokadası nəticəsində ağır vəziyyətdə olan Naxçıvanı xilas etmək üçün muxtar respublika əhalisi Heydər Əliyevi deputat, Ali Məclisin sədri seçdi. O, təkcə Naxçıvan üzərinə olan erməni hücumlarını dayandırmadı, eyni zamanda Azərbaycan milli dövlətçiliyinin bərpası istiqamətində nəhəng işlər gördü. Naxçıvanda rəsmi sovet rəmzlərindən imtina edildi. Həmçinin. Azərbaycan rəhbərliyinə sovet dövrünün bayrağı, gerbi və himnindən imtina olunması da tövsiyə olundu. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı rəsmi olaraq qəbul edildi. Bu, Heydər Əliyevin misilsiz tarixi xidməti idi. Beləliklə, Naxçıvan Azərbaycan milli dövlətçiliyinin bərpası, qorunması, möhkəmləndirilməsi və inkişafının bel sütununa çevrildi.

Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi heç şübhəsiz, müasir tariximizin ən mühüm hadisələrindən biri oldu. SSRİ dağıldıqdan sonra Azərbaycan xalqı və dövlətinin qarşısında əsasən aşağıdakı vəzifələr dururdu: Azərbaycanın dövlət müstəqilliyini tanıtmaq və qorumaq; Ermənistanın təcavüzünü dayandırmaq; diktaturadan demokratiyaya, planlı təsərrüfatdan azad bazar iqtisadiyyatına keçid.

Lakin bir-birini əvəz edən Azərbaycan rəhbərləri həmin vəzifələri yerinə yetirə bilmədilər. Hakimiyyət ilə xalq arasında uçurum yarandı. Hakimiyyət qanadları arasında ziddiyyətlər dərinləşdi. Ölkənin daxili və xarici siyasəti ağır vəziyyətə düşərək dalana dirəndi. Ermənistanın işğalının davam etdiyi bir şəraitdə Gəncədəki hərbi hissədə qiyam baş verdi. Qiyamı yatıra bilməyən hakimiyyət ölkədə baş verən proseslər üzərində nəzarəti tamamilə itirdi. Azərbaycanın şimalında və cənubunda xaricdən dəstək alan separatçılıq gücləndi. Ölkə parçalanmaq təhlükəsi qarşısında qalmışdı. Azərbaycanın dövlət müstəqilliyi məhv olurdu. Xalqı və dövləti uçurumdan çıxaran lider, dövlət xadimi yox idi. Mənəvi-psixoloji böhran içində boğulan xalqda sabaha ümidsizlik yaranmışdı. Xalq nicat yolu arayırdı. Ölkəni ağır vəziyyətdən çıxarmaq üçün təşkilati, dövlət idarəçilik bacarığı və qabiliyyətinə, intellektual səviyyəyə malik olmayan hakimiyyət daxildə xalqın dəstəyini qısa müddətdə itirmiş, beynəlxalq aləmdə ölkəni təcridçiliyə gətirmişdi. Belə şəraitdə vəzifədə olanlar bir-birinin dalınca istefa verərək məsuliyyətdən yaxa qurtarmaq yolunu tutdular. Bəziləri vəzifələrini "dondurdu", bəziləri də qaçıb gizləndi. Bu, Azərbaycan dövlətçiliyi tarixində pis bir an olub, gələcəkdə xatırlanası və istifadə etmək üçün müraciət ediləsi təcrübə olmayıb, utanc gətirən bir hal idi. Azərbaycan xalqı buna layiq deyildi. Ölkəni belə ağır vəziyyətdən kim çıxara bilərdi? Belə bir tarixi şəxsiyyət var idimi?

**Naxçıvandan Bakıya**

Belə bir çətin, mürəkkəb şəraitdə Azərbaycan xalqı Naxçıvana - Heydər Əliyevə üz tutdu. Respublika rəhbərliyi xalqın tələbələri əsasında Heydər Əliyevi Bakıya dəvət etdi. O, parlamentin sədri, daha sonra prezident kimi ağır bir vəzifəni yerinə yetirməli idi. Xalqın inamına görə, yalnız Heydər Əliyev Azərbaycan dövlətini dağılmaqdan, milləti mənəvi-psixoloji böhrandan çıxara, Ermənistanın davam edən işğalını dayandıra, ölkəni fəlakətə salmış xarici siyasət fəaliyyətini yeni əsaslar üzərində qura bilərdi.

Heydər Əliyev Bakıya gələn kimi yeni bir liderlik keyfiyyətini ortaya qoydu. Qiyamın baş verdiyi Gəncəyə getdi. Xalqın içində oldu. Bundan sonra Gəncədə sabitlik tədricən bərqərar olmağa başladı.

Heydər Əliyevin qarşısında daxili siyasət sahəsində xeyli ağır vəzifələrin həll edilməsi dururdu: ölkəni dağılmaqdan, xaricdən dəstəklənən separatçılıqdan xilas etmək, milli birlik yaratmaq, hakimiyyətin qanadları arasında yekdilliyə nail olmaq; xalq ilə hakimiyyət arasında uçurumu, inamsızlığı aradan qaldırmaq, iflic hala düşmüş dövlət orqanlarını işlək hala gətirmək, dövlətin əlində olması gərəkərkən silahları ələ keçirmiş, ölkədə kriminogen vəziyyət yaradan ayrı-ayrı dəstələri tərksilah etmək, insanların sakit və təhlükəsiz yaşayışını təmin etmək, ağır sosial-iqtisadi vəziyyətdə yaşayan xalqı inkişafa aparmaq, ölkənin iqtisadi, hərbi və xalqının mənəvi-psixoloji ruhunu qaldıraraq gücünü yaratmaq üçün etibarlı açarı tapmaq, köhnə sosializm sistemindən imtina edərək uğurlu islahatlar apararaq yeni sistemə keçmək və s.

Xarici siyasət sahəsində Heydər Əliyevin qarşısında duran əsas vəzifələr Ermənistanın davam edən işğallarını dayandırmaq, ölkəni fəlakətə salmış bir istiqamətli, Azərbaycan xalqı və dövlətinə düşmənlər

qazandıran xətdən imtina etmək, uğurlu dövlət quruculuğu üçün əlverişli beynəlxalq şərait yaratmaq, dostları artırmaq və s. İdi.

Yerləşdiyi coğrafi-siyasi mövqeyi, təbii sərvətləri ilə yüzilliklər boyu imperiya siyasəti yürüdən böyük dövlətlərin sınaq meydanına, "qurdlar süfrəsi"nə çevrilən Azərbaycanda bütün bunları bir dövlət xadiminin həll etməsi xeyli mürəkkəb və çətin bir iş idi.

Hakimiyyətə topsuz-tüfəngsiz gələn Heydər Əliyev ölkənin problemlərinin həllində zora deyil, məhz xalqa arxalandı. Azərbaycanı boğan separatçılıq bilavasitə xalqın iradəsi ilə dəfn edildi. Xalq ayağa qalxıb separatçıları qovaraq dövlətini müdafiə etdi. Lakin ölkə qarşısında həlli vacib olan digər məsələlər də dururdu. Ermənistan ilə müharibə davam edir, Azərbaycan əraziləri bir-birinin ardınca işğal edilirdi. Bu isə ölkənin inkişafına başlıca mane idi. Azərbaycan ya sonu görünməyən və nəticəsi bilinməyən müharibəni davam etdirib bir dövlət və xalq kimi məhv olmaq təhlükəsində qalmalı, ya da atəşkəsə nail olub fasilə qazanmalı, dövlətini qurmalı, onu möhkəmləndirməli, ordusunu təşkil etməli idi.

**Sonu görünməyən müharibə, yoxsa inkişafa imkan verən atəşkəs?**

Heydər Əliyev atəşkəs yolunu seçdi. Dövlət idarəetməsini iflic halına, xalqı mənəvi-psixoloji böhrana salan, maliyyə və iqtisadi ehtiyatlarını udan hərbi əməliyyatlar dayandırıldı. Atəşkəs Azərbaycana bir sıra məsələlərin həllinə imkan verdi. Hər şeydən əvvəl, Heydər Əliyevin bilavasitə iradəsi, qətiyyəti sayəsində "Əsrin müqaviləsi" imzalanaraq həyata keçirilməyə başladı. Azərbaycan dünyanın cazibə mərkəzinə çevrildi. Bununla Heydər Əliyev ucuz xammal mənbələri, əlverişli satış bazarları, strateji mövqelər, nüfuz qazanmaq üstündə bir-biri ilə didişən ölkələri Azərbaycanda əməkdaşlığa dəvət etdi, ortaq məxrəc yaratdı. Ərazicə kiçik, əhalisinin sayına görə az olmasına baxmayaraq, Azərbaycan özündən qat-qat böyük olan dövlətləri bir araya gətirdi. Soruşulur: ərazisi, coğrafiyası, əhalisi bir neçə il əvvəlki kimi olan Azərbaycanın dünya siyasətində rolunu artıran, mövqelərini gücləndirən, dünyanın əhəmiyyətli geosiyasi ölkələrindən birinə çevirən amillər hansılar idi? Heç şübhəsiz, bu sualın yalnız bir cavabı vardır: Heydər Əliyevin təkcə daxili siyasət məsələlərini deyil, dünya işlərini mükəmməl bilməsi, zəkası, uzaqgörənliyi, qətiyyəti müdrikliyi, biliyi, bacarığı, qətiyyəti. Bu, Heydər Əliyevin təkcə Azərbaycan xalqı deyil, dünya siyasəti qarşısında xidmətlərindən biri idi.

Heydər Əliyevin böyük dövlət xadimi kimi qətiyyəti özünü "Əsrin müqaviləsi" imzalandıqdan sonra baş verən dövlət çevrilişi cəhdlərinin qarşısının alınmasında özünü aydın şəkildə göstərdi. 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında baş verən dövlət çevrilişləri cəhdləri məhz Heydər Əliyevin yenilməz qətiyyəti, siyasi bacarığı ilə iflasa uğradıldı. Azərbaycan xalqı qanuni hakimiyyəti müdafiə etdi. Çevriliş cəhdlərinin qarşısının alınmasının Azərbaycan üçün tarixi bir əhəmiyyəti oldu.Heydər Əliyev göstərdi ki, Azərbaycan dövlət çevrilişləri üçün sınaq meydanı deyildir, Azərbaycanda güclü dövlət vardır. Çevriliş cəhdlərinin darmadağın edilməsi digər bir mühüm məsələnin həllinə də kömək etdi. Məlum olduğu kimi, Azərbaycanda siyasi sabitlik və sabaha ümidlər olmadığından xarici ölkələr və donor təşkilatlar Azərbaycana borc vermirdilər. Dövlət büdcəsində isə vəsait yox idi. Dövlət çevrilişləri cəhdlərinin qarşısı alındıqdan sonra xarici sərmayədarlar üçün əlverişli imkanlar yarandı. Azərbaycana investisiya axını başladı. Yeni neft strategiyası ölkənin inkişafı, güclü dövlət qurulması, Azərbaycan xalqının daha yaxşı yaşayışını təmin etmək üçün açar oldu. İslahatlara başlanıldı. Özəlləşdirilmə həyata keçirildi. Azad bazar iqtisadiyyatına keçildi. Sosializmin qalıqları dağıdıldı. Ölkənin demokratikləşdirilməsi istiqamətində islahatlar aparıldı. Çoxpartiyalı sistemin əsasları möhkəmləndirildi. Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ən başlıcası, Heydər Əliyev Azərbaycanda təməlləri möhkəm olan müasir, güclü dövlətçilik ənənəsinin, dərin dövlətin əsasını qoydu. Bu, tarixi bir xidmət idi.

**Region geosiyasətinin dəyişməsinə təsir edən dövlət xadimi**

Heydər Əliyev hakimiyyətə gələrkən ölkənin xarici siyasəti böhran içində idi. Diplomatiya xalqın və dövlətin qarşısında duran əsas xarici siyasət vəzifələrini yerinə yetirə bilmir, dövlət quruculuğu və xalqın təhlükəsiz yaşayışını təmin etmək üçün əlverişli beynəlxalq şərait yarada bilmir, ölkəni problemlərə salırdı. Xarici siyasət dövləti dalana sürükləyən bir istiqamətli xətt üzrə və hissiyatlarla həyata keçirilirdi. Azərbaycan xalqının və dövlətinin maraqlarına cavab verməyən belə xarici siyasət xəttindən imtina edən Heydər Əliyev tarazlaşdırılmış xarici siyasət xəttini dövlətin beynəlxalq fəaliyyətinə gətirdi. Tarazlaşdırılmış xarici siyasət dövlətin başlıca xarici siyasət məqsədlərinin həyata keçirilməsi üçün bir vasitə oldu. Azərbaycanın mehriban qonşuları, ticarət ortaqları, strateji tərəfdaşları və strateji müttəfiqləri müəyyənləşdirildi. Azərbaycan İran və Rusiya ilə mehriban qonşuluq münasibətləri qurmaq üçün addımlar atdı. Türkiyə və Gürcüstan ilə strateji

müttəfiqlik xətti seçildi. Azərbaycan Avropa ailəsinin bərabərhüquqlu üzvünə çevrildi. Ölkənin beynəlxalq nüfuzu artdı. Heydər Əliyevin fəaliyyətinin bir sıra nəticələri oldu.

**Haradan haraya gəldik?**

Heydər Əliyev Azərbaycan dövlətini dağılmaqdan, xalqını parçalanmaqdan xilas etdi. İctimai-siyasi sahədə-ötən illər ərzində Azərbaycan xaosdan, anarxiyadan təbii sabitliyə, dağılmaqda olan dövlətdən güclü dövlətin qurulmasına gəldi. Ölkə xaosdan, anarxiyadan qurtuldu. Sabitlik yaratdı. İslahatlar aparıldı. Davamlı, sabit inkişafın təməlləri qoyuldu. Ənənəsi olan müasir, modern dövlətin qurulması üçün ciddi addımlar atıldı. Ölkə vətəndaş qarşıdurmasından milli birliyə, vətəndaş sülhünə gəldi. Ölkədə demokratikləşdirmə istiqamətində islahatlar genişləndirildi.

İqtisadi sahədə-fərdi təşəbbüsü və bacarığı boğan sosialist təsərrüfatın sisteminin qalıqlarından imtina edilərək azad bazar iqtisadiyyatına keçildi. Bərabər imkanların yaradılması istiqamətində islahatlar həyata keçirildi.

Hərbi sahədə - ayrı-ayrı silahlı dəstələr tərksilah edilərək ölkəni xarici təcavüzdən qorumaq, işğal altında olan əraziləri azad etmək qüdrətində olan ordu yaradıldı.

Mənəvi-psixoloji sahədə - xalqda milli ruh, dövlətçilik, vətənpərvərlik hissi gücləndirildi. Azərbaycan xalqına layiq yeni bir Azərbaycan yarandı. Azərbaycan modernləşmə üçün hazırlandı.

**Modernləşən Azərbaycanın qurulmasına doğru. "Azərbaycan möcüzəsi"**

Heydər Əliyevdən sonra hakimiyyətə gələn Prezident İlham Əliyevin hakimiyyəti isə Azərbaycan tarixində modernləşmə, müasirləşmə ilə səciyyələnir. Tarixin təcrübəsi göstərir ki, hər hansı bir ölkənin çoxlu maliyyə vəsaitləri və təbii sərvətləri ola bilər. Lakin əgər hakimiyyət həmin təbii sərvətləri milli sərvətə çevirmirsə, zəmanəsinin yeni texnologiyalarını tətbiq etmirsə, insanlar əməyi, zəhməti yadırğayırlarsa, ölkə inkişaf etmiş dövlətlərdən geri qalır, çox vaxt da rəqabətə tab gətirmir və tarix səhnəsindən silinir. Buna dair çoxlu nümunələr gətirmək olar. Məhz Prezident İlham Əliyev Azərbaycanın sənayecə inkişaf etmiş ölkələr səviyyəsinə çatmaq strategiyasını müəyyənləşdirərək həyata keçirməyə başladı. Azərbaycan gözlərimizin önündə müasirləşən bir ölkəyə çevrildi. Azərbaycanı satış bazarına çevirmək istəyən bəzi ölkələr özləri Azərbaycanda istehsal olunan məhsullar üçün satış bazarına çevrildilər. Sovet dövrü başa çatdıqdan sonra yaranmış boşluqda Azərbaycan xalqının əməyi yadırğamasının qarşısı alındı. Ölkə tikinti-quruculuq meydanına çevrildi. İlham Əliyev Azərbaycan xalqının minilliklər tarixində qurucu Prezident adını qazandı. O, xalqın milli birliyini möhkəmləndirdi. Ona səs verənin də, verməyənin də, bütün Azərbaycan vətəndaşlarının, hamının Prezidenti oldu. Azərbaycan ərazilərinin bir hissəsinin Ermənistan silahlı qüvvələrinin işğalı altında olmasına, qaçqın və məcburi köçkünlər olmasına baxmayaraq, ölkədə tikinti-quruculuq işləri genişləndirildi. Böyük bir inkişaf dövrü başladı. Bu, dünya tarixində nadir rast gəlinən bir proses olub "Azərbaycan möcüzəsi" idi.

Azərbaycan borc alan ölkədən borc verən, kapital ixrac edən ölkəyə çevrildi.

Müstəqilliyin ilk illərində enerji təchizatı sarıdan problemlərlə üzləşən Azərbaycan enerji təhlükəsizliyini nəinki təmin etdi, eyni zamanda "qoca dünyanın" - Avropanın, "yeni dünyanın" - ABŞ-ın, bütövlükdə dünyanın enerji təhlükəsizliyində mühüm rol oynamağa başladı. Bakı -Tbilisi -Ceyhan neft, Bakı -Tbilisi -Ərzurum qaz kəmərləri təkcə iqtisadi deyil, siyasi, strateji əhəmiyyət daşıyaraq Azərbaycanın müstəqilliyinin beynəlxalq təminatlarına çevrildilər. Bu kəmərlər Avrasiyanın geosiyasətini dəyişdirdilər.

Ölkənin paytaxt şəhərinin sakinlərinin ekoloji cəhətdən təmiz su ilə təmin edilməsin istiqamətində ciddi addımlar atıldı. Oğuz-Qəbələ-Bakı su kəməri çəkildi.

Azərbaycanda sosial dövlət quruldu. Həyata keçirilən bütün tədbirlərin hamısı xalqın daha yaxşı yaşamasına yönəldi.

Bakı - Tbilisi - Qars dəmiryol xəttinin tikintisinin uğurla başa çatması ilə Azərbaycan dünyanın nəqliyyat qovşağı olan bir ölkəyə çeviləcəkdir. Təkcə yüklərin həmin yol ilə daşınmasından dövlət büdcəsinə təqribən 50 milyon dollardan artıq vəsait daxil olacaqdır.

Heç şübhəsiz, bütün bunlar özbaşına qurulmadı. Axı, Azərbaycanın coğrafiyası elə 90-cı illərin əvvəllərindəki kimi idi. Dəyişilməmişdi. Bəs nədən Azərbaycan belə bir inkişaf səviyyəsinə gəldi? Bu, geniş və dərin araşdırma tələb edən bir problemdir. İlk növbədə göz önünə yenə də liderlik və idarəçilik amili gəlir. Azərbaycan Prezidentinin yüksək bacarığı və idarəçilik qabiliyyəti, dünya işlərini dərindən bilməsi bu inkişafın başlıca amillərindən biridir. Onun siyasətinin bütün ruhu hər şey Azərbaycan dövləti və xalqı üçündür.

**İnkişafdan doğan problemlər**

Heç şübhəsiz, Azərbaycan problemlərsiz də deyildir. Bu problemlər böhrandan, geriləmələrdən deyil, ölkənin inkişafından doğan problemlərdir. Elə sahələr vardır ki, onlar ölkənin sürətli inkişafından geri qalır. İnsanlar daha yaxşı yaşamağı arzulayırlar. Belə bir istəyə yalnız sevinmək lazımdır.

Ölkə və xalq tərəqqi etmək istəyirsə, təkamül yolunu tutmalıdır. İnqilablar faciələrə, əksinqilaba, qana, kin-küdurətə gətirir. Cəmiyyəti parçalayır.

Azərbaycan xalqının düşməni varlılıq, zənginlik və varlılar deyil, yoxsulluq olmalıdır. Ölkədə insanın yaxşı yaşaması, imkanlarının artması, varlıların çox olması yalnız faydalıdır. Biz zənginlərimizin kasıblara deyil, kasıblarımızın zənginə çevrilməsinə çalışmalıyıq. Azərbaycan kasıblar, yoxsullar deyil, zənginlər ölkəsinə çevrilməlidir. Bunun yolu isə inqilabda deyil, təkamüldə, islahatlardadır.

Azərbaycanın bir böyük problemi var. O da, Ermənistanın təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsidir. Deməli, bütün xalqımız həmin münaqişənin həllində, ümummilli məsələlərdə bir olmalıdır. Düşməni sevindirən, onun maraqlarına uyğun olan hərəkətlər etməməli, qarışıqlığa yol verməməlidir.

**İbrət dərsləri**

Dövlət müstəqilliyimizin bərpasından ötən 20 ilin təcrübəsi bir sıra ibrət dərsləri almağa imkan verir. Hər şeydən əvvəl, hakimiyyətə küçədən gəlmək fəlakətlidir, ölkənin inkişafını geri atır. Xalq dövlətinin idarə olunmasını kimə etibar etdiyini bilməlidir. Xalq daim öz dövlətinin yanında olmalıdır. Hakimiyyət daxilində ixtilaflara yol vermək, anarxiya, xaos ağır nəticələrə gətirər. Xalq arasında ümummilli məsələlərdə birlik olmalıdır. Ölkəni xaricilər üçün sınaq meydanına çevirməyə qətiyyən yol vermək olmaz. Xalq əgər tərəqqi etmək istəyirsə, dövləti güclü olmalıdır.

Heydər Əliyev yolunun Azərbaycanda alternativi yoxdur. Azərbaycanın tərəqqisi həmin yol ilə bağlıdır. Heydər Əliyev yolunun əksinə olan yol Azərbaycanı dağıtmaq, milli dövləti, dövlətçiliyi məhv etmək, ölkəni parçalamaq, yadellilərin tapdağına çevirmək, xalqı bir-birinə qənim kəsmək, vətəndaş müharibəsinə sürükləmək, onu rəzil günə salmaq yoludur. Belə bir antimilli yola Azərbaycanda kimsənin müraciət edəcəyi, xalqın həmin yolu qəbul edəcəyi xəyaldan başqa bir şey deyildir. Heydər Əliyevin əsasını qoyduğu siyasi xətdən kənara çıxılması Azərbaycanda böyük fəlakətlərə gətirər. Bu, həm də qonşular üçün arzuolunmayan proseslərin başlanması olar. Deməli, Azərbaycan xalqı və dövləti mövcud olduqca Heydər Əliyev dövlətçilik irsinə də daim müraciət ediləcək, ondan istifadə olunacaqdır.

**“Xalq qəzeti”.-**2011.-8 may.-N 99.-S.9.

# HEYDƏR ƏLİYEV İRSİ, İDEYA VARİSLİYİ VƏ DAVAMLI İNKİŞAF

**Səlahəddin Xəlilov,**
YAP Siyasi Şurasının üzvü,
Azərbaycan Universitetinin professoru

**Böyük şəxsiyyətlər tarixin sütunlarıdır. Onlar nə qədər möhkəm və davamlı olsa, bəşəriyyətin inkişafı da bir o qədər dayanıqlı olar.**

**Əbu Turxan**

Heydər Əliyev doğulanda SSRİ də bir dövlət kimi yenicə doğulurdu. Lakin şəxsiyyətin həyatı dövlətin həyatından daha davamlı oldu. O, Sovetlər İttifaqının idarəetmə sisteminin kəşməkəşlərindən alnıaçıq keçdi, və onun zəngin təcrübəsini mənimsəyərək özünün bütün bilik və səylərini ölkəmizdə yeni dövlət doğuluşunun uğurla həyata keçirilməsinə yönəltdi. Bir insan ömrü iki dövlətçilik məktəbini özündə ehtiva etdi. Məktəbin birini əla qiymətlərlə bitirərək o biri məktəbin əsasını qoydu, iki fərqli dövlət formatı arasında körpü saldı.

SSRİ kimi bir böyük dövlətçilik məktəbinin yeni ideya zəminin transfer edilməsi və əvvəlki təcrübənin zamanca sonrakı ideya ilə üzvi surətdə birləşdirilməsi kimi unikal bir əməliyyat aparılması Heydər Əliyev dühasının ən parlaq təzahürlərindən biri idi. Bu hadisə təkcə Azərbaycan üçün əlamətdar olmayıb, dünya tarixinin ən unikal səhifələrindən birinə çevrildi. Bəli, Heydər Əliyev ibrətamiz bir sintez nümunəsi yaratdı: ənənəvi dövlətçiliklə yeni ideologiyanın, Qərb siyasi təfəkkürü ilə Şərq mentalitetinin, təcrübə ilə novatorluğun sintezi. Söhbət yeni bir tarixi mərhələdə, yeni dəyərlər müstəvisində kökü qədimlərə dayanan misilsiz bir dövlət nümunəsi qurmaqdan gedir. Bu gün Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən böyük islahatlar və yeni iqtisadi model də məhz o vaxt Heydər Əliyev tərəfindən təməli qoyulmuş bu möhtəşəm quruculuq planlarının yeni keyfiyyət mərhələləridir.

Ən şərəfli həyat əbədiyyətə qovuşan həyatdır. Əbu Turxanın dediyi kimi, böyük adamların ömrü onların ideyalarının ömrü ilə ölçülür. Heydər Əliyev ideyalarının həmişəyaşar olmasını təmin edən ən mühüm hadisələr sırasında onun nəzəri-ideoloji irsinin öyrənilməsi, ideyalarının tədqiqi və təbliği ilə bağlı ictimai təşkilatların və elmi-tədqiqat müəssisələrinin fəaliyyəti, Heydər Əliyev Fondunun beynəlxalq miqyasda həyata keçirdiyi tədbirlər, bu məqsədə xidmət edən araşdırma və tədris mərkəzləri, universitetlər, akademiyalar və s. xüsusi yer tutur.

Heydər Əliyev Fondunun Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirdiyi çoxşaxəli fəaliyyəti onun ideyalarını təkcə sözdə yox, həm də işdə yaşatmağın bariz nümunəsidir.

Fərəhlə qeyd edilməlidir ki, təhsilin maddi-texniki bazasını gücləndirmək və yeni məktəb binaları tikmək haqqında Heydər Əliyevin imzaladığı axırıncı sərəncamlardan biri indi onun adını daşıyan Fond tərəfindən əzmlə yerinə yetirilməkdədir. Son dövrlərdə Azərbaycanda məktəblərə diqqətin artması da bu baxımdan qanunauyğun görünür.

İlham Əliyevin rəhbərliyi ilə Milli Olimpiya Komitəsi tərəfindən bütün bölgələrdə yeni idman komplekslərinin tikilməsi işi indi Mehriban xanım Əliyevanın rəhbərliyi ilə bütün bölgələrdə yeni məktəb binalarının tikilməsi ilə davam etdirilir ki, bu da "sağlam bədən" üçün görülən işlərin "sağlam ruh" üçün görülən işlərlə tamamlanması deməkdir. Bu tamamlanma özünü hətta idmanın daxilində ahəngdar tənasübün təmin olunmasında; güləş, boks və ağır atletika sahəsində dünya miqyasında qazanılan böyük nailiyyətlərin zərif idman növü olan bədii gimnastika sahəsindəki uğurlarla müşayiət olunmasında da göstərir.

Amma, əslində, miqyas çox böyükdür. Bütün dünya ölkələri içərisində öz iqtisadi inkişaf tempinə görə birinci olan, yeni iqtisadi inkişaf modelinə imza atan ölkənin, digər tərəfdən, öz mədəni irsi ilə dünyanın diqqətini cəlb etməsi, milli-estetik dəyərlərimizin beynəlxalq səviyyədə nümayiş etdirilməsi də belə bir tamamlanmadan, hərtərəfli ahəngdar inkişafdan xəbər verir. Şəhərlərimizin hətta zahiri görkəmində də böyük tikintilər və quruculuq işləri ilə yanaşı, yüksək estetik zövq, incə bir dəst-xətt görünür. Bir sözlə, böyük Heydər Əliyev şəxsiyyətində birləşən dövlətçilik təfəkkürü ilə yüksək estetik şüurun vəhdəti indi yeni formatda davam etdirilir.

Azərbaycanda təzə-təzə formalaşan Birinci Ledi İnstitutu da əksər dünya ölkələri üçün örnək ola bilmək səviyyəsindədir. Ölkəmizin günü-gündən artmaqda olan iqtisadi qüdrətinin və siyasi uğurlarının başında duran Prezident İlham Əliyevin fəaliyyəti dövlət quruculuğu xəttini ifadə edirsə, Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən (humanitar, kulturoloji və maarifçilik işi ictimai fəaliyyət xəttinin dinamikasını ifadə edir. Açıq-aşkar şəkildə nəzərə çarpan bu tandemin hər iki istiqamətdəki uğurları zirvəsindən dönüb geriyə, yaxın tarixi keçmişə baxdıqda Heydər Əliyev dühasının daha bir əlamətdar cəhəti üzə çıxır. Biz o

zamanlar Azərbaycanda Birinci Ledi İnstitutunun çatışmadığının fərqində deyildik. İndi məlum olur ki, o özü bu boşluğun hiss olunmasına imkan vermirmiş.

Zəriflik və şəfqət mücəssəməsi olan Zərifə xanım Əliyevanın özü olmasa da, sanki, ruhu bu yeni dövlət quruculuğunda iştirak edir və ölkənin ahəngdar inkişafına təminat verirdi. Heydər Əliyev qədər zəhmli bir adamın humanitar sahədə və ziyalılara münasibətdə bu qədər mülayim və şəfqətli olması, beynəlxalq siyasi fəaliyyət, böyük miqyaslı quruculuq işləri və fundamental iqtisadi islahatlarla yanaşı, vaxt tapıb sənətə, şeirə, musiqiyə diqqət və qayğı göstərməsi heç də təsadüfi deyilmiş. Məhz onun belə yüksək dərəcədə hərtərəfli, ahəngdar fəaliyyəti bizə bu boşluğu hiss etməyə imkan vermirdi. İndi format dəyişib, necə deyərlər, dünya standartlarına daha çox uyğunlaşıb, ölkənin ideya-siyasi, maddi, həm də mədəni-estetik dəyərlər sistemi yeni ampluada təcəssüm olunur.

Heydər Əliyev irsinin qorunması və yayılması, onun ideyalarının təbliği istiqamətində həyata keçirilən çoxçeşidli tədbirlər obyektiv əsaslara malikdir və onların reallaşdırılması heç də təkcə Heydər Əliyev şəxsiyyətinə münasibətlə bağlı deyil. Bu tədbirlər gənc nəslin dövlətçilik duyğularının inkişaf etdirilməsi baxımından da çox önəmlidir. Daha çox şair və müğənni kultunun geniş yayıldığı bir ölkədə böyük dövlət xadimlərinə, Vətənə və dövlətçiliyə sevgi ənənəsinin formalaşması həm də milli mentalitetdə birtərəfliliyin aradan qaldırılmasına xidmət edir. Bu baxımdan, Heydər Əliyev şəxsiyyətinin, onun həyat və fəaliyyətinin işıqlandırılması, onun ideyalarının müasir ictimai şüurun strukturuna daxil edilməsi olduqca böyük əhəmiyyətə malikdir.

Bu gün biz tam əsasla deyə bilərik ki, Heydər Əliyevin ideyaları indi də fəaliyyətdədir. Ölkəmizdəki bütün quruculuq işləri məhz bu ideyaların həyata keçirilməsi istiqamətində gedir. Heydər Əliyev, sadəcə, fəhmə və təcrübəyə əsaslanmamış, bir sıra fundamental məsələlərlə bağlı fəaliyyətin metodologiyasını da işləyib hazırlamışdı. Məsələn, demokratikləşdirmə və təşkilatlanma proseslərinin nisbətində tarazlığın vacibliyi prinsipini irəli sürmüş və Azərbaycanda dövlət quruculuğu prosesində bu tarazlığın qorunub-saxlanması üçün metodoloji baza yaratmışdı. Ölkəmizdə dövlət müstəqilliyini və onun qorunub-saxlanmasını hər hansı başqa dəyərdən yüksək tutan Heydər Əliyev demokratikləşməni də bu ali məqsəd çərçivəsində, onun təminatlarından biri kimi qəbul edirdi. Azərbaycanın müstəqilliyi Heydər Əliyevin bütün fəaliyyətinin və çıxışlarının ana xətti idi.

Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini artıq təmin olunmuş, dönməz proses kimi qiymətləndirirdi. Lakin sual oluna bilər ki, buna belə əminliklə qarantiya verə bilmək üçün nə kimi tədbirlər görülmüşdü? Son dövrlərin tarixi göstərir ki, bu məqsədlə onun rəhbərliyi ilə dövlət quruculuğunun bütün istiqamətlərində ardıcıl və məqsədyönlü fəaliyyət göstərilmişdir ki, bunların da mərkəzində dövlət təhlükəsizlik sisteminin yaradılması durmuşdur. Dövlət təhlükəsizliyi geniş mənada başa düşüldükdə heç də xüsusi xidmət sahəsi olmayıb, bütün fəaliyyət sahələrində milli maraqlara söykənən müstəqil dövlət siyasətinin həyata keçirilməsinə təminatdır.

Əlbəttə, dövlət təhlükəsizlik sisteminin yaradılmasında əsas istiqamətlərdən biri ordu quruculuğudur. Heydər Əliyev bu sahəyə həmişə böyük önəm vermişdir: "Silahlı qüvvələrin yaradılması Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini təsdiq edən, onu nümayiş etdirən amillərdən biridir"; "...Azərbaycan Respublikasının milli ordusu - respublikamızın milli təhlükəsizliyini, əhalimizin əmin-amanlığını və mühafizəsini təmin etmək" üçündür. Lakin milli təhlükəsizlik təkcə ordu və polislə təmin edilə bilməzdi. Ona görə də, Heydər Əliyev dövlət müstəqilliyinin qorunmasını siyasi, iqtisadi və mədəni-mənəvi istiqamətlərdəki fəaliyyətlərin də başlıca məqsədi hesab edirdi. Milli iqtisadiyyatımızın möhkəmləndirilməsi, onun müasir şəraitdə labüd olan azad rəqabət və bazar münasibətləri əsasında yenidən qurulması prosesi ilk dövrlərdə ağrılı keçsə də, artıq öz bəhrələrini verir. İqtisadiyyatın inkişaf yolu düzgün seçildikdə, iqtisadi münasibətlər sistemının xarakteri düzgün müəyyənləşdirildikdə iqtisadi təhlükəsizlik üçün də təminat yaranmış olur. Bir şərtlə ki, xarici ölkələrlə iqtisadi münasibətlər yaradılarkən, cari və perspektiv milli maraqlar nəzərə alınmış olsun.

Bəli, biz milli-iqtisadi potensialdan daha səmərəli istifadə etmək üçün Azərbaycan iqtisadiyyatına xarici sərmayələrin qoyulmasından imtina etmirik, əksinə, müasir şəraitdə buna üstünlük veririk. Ulu öndər deyirdi: "Bizim iqtisadi siyasətimiz məlumdur və o, Azərbaycanda bazar iqtisadiyyatı yolu ilə getmək və bu yol ilə Azərbaycan iqtisadiyyatını dünya iqtisadiyyatına sıx surətdə bağlamaq məqsədi daşıyır". Lakin bütün bu əlaqələr zamanı heç vaxt unudulmur ki, "bizim bütün təbii sərvətlərimiz xalqa məxsusdur". Bu sərvətlər "Azərbaycanın tam sərbəst, heç bir dövlətdən asılı olmayaraq yaşamasına imkan verir. Güman edirəm ki, biz müstəqilliyimizi tam bərqərar etdikdən və qarşıda duran vəzifələri həyata keçirdikdən sonra ölkəmizin bu iqtisadi potensialının bəhrələrini Azərbaycanın hər bir vətəndaşı görəcək və bunun sayəsində şən, firavan yaşayacaqdır".

Milli-iqtisadi təhlükəsizlik təkcə xarici iqtisadi əlaqələrdə milli maraqların nəzərə alınması ilə məhdudlaşmır. Daxildə iqtisadi islahatların sosial yönümə üstünlük verməklə aparılması, şəxsi maraqlarla dövlət maraqlarının uzlaşdırılması da mühüm şərtdir. Burada biz zahirən paradoksal görünə biləcək bir cəhətlə qarşılaşırıq. Dövlət təhlükəsizlik sistemi ilk baxışda fərdlərin yox, məhz dövlətin iqtisadi maraqlarından çıxış etməyi nəzərdə tutur. Lakin Heydər Əliyevin həyata keçirdiyi siyasət "xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" prinsipinə əsaslanır. Dövlət müstəqilliyinin dönməzliyi də məhz o zaman təmin edilmiş olur ki, dövlətin maraqları ümummilli maraqlarla üst-üstə düşmüş olsun.

Heydər Əliyevin irəli sürdüyü və bir konsepsiya halına saldığı ideyalardan biri məhz "müstəqillik" anlayışı ilə bağlıdır. Bu konsepsiyaya görə, müstəqillik heç də bəzilərinin başa düşdüyü kimi, ancaq siyasi müstəqillikdən, sərhədlərin toxunulmazlığından ibarət deyil. Bura həm də iqntisadi müstəqillik, milli maraqlara xidmət etmək müstəqilliyi daxildir. Elə ölkələr vardır ki, hüquqi və siyasi baxımdan suverenliyi elan olunsa da, real müstəqillikdən uzaqdır. Buna çox misallar gətirmək olar. Amma ən yaxın olan digər MDB ölkələridir; Gürcüstandır, Ermənistandır, Tacikistandır və s. Bir qarış belə torpağını itirməmiş, əksinə, qonşu dövlətin ərazisini də zəbt etmiş Ermənistan sözün həqiqi mənasında müstəqillik əldə edə bilməmişdir. Ərazisində başqa bir dövlətin qoşunları yerləşdirilmiş, sərhədləri başqalarının nəzarəti altında olan Ermənistan hələ də Moskvanın siyasi təsirindən xilas ola bilməmişdir və öz milli maraqlarına uyğun addımlar atmaq imkanından məhrumdur. Elə Azərbaycanla müharibə vəziyyəti də onun milli iqtisadi maraqlarına ziddir... Habelə iqtisadi cəhətdən özünü dolandırmaq iqtidarında olmayıb, xarici yardımlardan asılı vəziyyətdədir. Məhz hərbi bazaya və siyasi alətə çevrildiyi və təhlükəsizliyə təminat verə bilmədiyindən İpək Yolunun bərpası, iri miqyaslı neft-qaz kəmərlərinin çəkilişi və digər bu kimi beynəlxalq miqyaslı layihələrdə də iştirak edə bilmir.

Belə misallar çox göstərmək olar. Ancaq əsas məsələ budur ki, Azərbaycan qısa bir zamanda siyasi müstəqilliklə yanaşı, həm iqtisadi, həm də mədəni-mənəvi müstəqillik əldə etmiş və bu istiqamətdəki proseslərin dönməzliyini də təmin edə bilmişdir. Lakin bu məqsədə aparan yol heç də asan olmamışdır. Bunun üçün o dövrün xüsusiyyətlərindən irəli gələn bütün təfərrüatlar ölçülüb-biçilməli və mümkün olan ən düzgün qərarlar qəbul edilməli idi ki, Heydər Əliyev dühası burada da öz sözünü vaxtında dedi.

Təsadüfi deyil ki, Heydər Əliyevin ideyaları həmişə konkret ictimai-siyasi şəraitlə sıx surətdə bağlı olmuşdur. Onun Azərbaycanda dövlət quruculuğuna başladığı şərait isə qısaca desək "keçid dövrü" kimi səciyyələndirilə bilər. O vaxt Azərbaycan eyni vaxtda dörd istiqamətdə keçid dövrünü yaşayırdı:

Birincisi, böyük imperiyadan ayrıldıqdan sonra nisbi müstəqil dövlətçilikdən tam müstəqil dövlətçiliyə keçid - müstəqilləşmə və bərabərhüquqlu tərəf kimi dövlətlərarası münasibətlər sisteminə daxil olma prosesi.

İkincisi, bir ictimai-iqtisadi sistemdən yeni ictimai-iqtisadi sistemə, dövlət mülkiyyətindən xüsusi mülkiyyətə, sosialist iqtisadi münasibətlərindən bazar iqtisadiyyatına keçid.

Üçüncüsü, milli və dini dəyərlərə qayıdış prosesi; kommunist ideologiyasından və kosmopolit mənəviyyatdan milli mənəviyyata, ateist dünyagörüşündən həqiqi vicdan azadlığına keçid.

Dördüncüsü, bir siyasi rejimdən yeni siyasi rejimə, totalitar cəmiyyətdən demokratik cəmiyyətə, senzuradan söz azadlığına, vahid partiya və ideologiyadan çoxpartiyalılığa, plüralizmə keçid.

Belə bir mürəkkəb şəraitdə düzgün yol seçmək həqiqətən çətin idi. Cəmiyyətin özü yeni quruluşa, həqiqi demokratik proseslərə hazır deyildi. Demokratikləşmə isə əslində müstəqillik yolunun ən mühüm atributlarından biri idi. Çünki zəmanə özü bunu tələb edirdi. Müstəqilliyin yolu ümumbəşəri dəyərlərə qovuşmaqdan, siyasi plüralizmdən, söz və fikir azadlığından, demokratikləşmədən keçirdi. Milli-mənəvi dəyərlərin taleyi də xeyli dərəcədə onların bu ümumbəşəri dəyərlərə, müasir dövlətçilik tələblərinə uyğunlaşa bilmək şansından asılı idi.

O dövrdə milli istiqlaliyyət, imperiya buxovlarından azad olmaq, milnli köklərə qayıtmaq istiqamətindəki fəaliyyət üçün daha böyük potensial var idi və bu istiqamətdə daha böyük əzm nümayiş etdirilirdi. Çünki hələ sovet dövründə də əsasən əxlaq, adət-ənənə, dini şüur, bədii ədəbiyyat və incəsənət vasitəsilə xalqın milli özünəməxsusluğu qorunub saxlanırdı. Milli ruh hələ yaşayırdı.

Siyasi və ideoloji müstəvidəki buxovlar aradan götürüldükdən sonra milli-mənəvi dəyərlərin milli-siyasi təşkilatlanma prosesi ilə vəhdəti üçün real zəmin yarandı. Düzdür, burada da çətinliklər var idi. Əhalinin bir qisminin, xüsusən, "rusdilli" əhaliyə aid olanların milli mədəniyyətə bələdliyi, milli köklərlə bağlılığı çox aşağı səviyyədə olduğundan və onların həyat tərzi və hətta şəxsi, ictimai əlaqələri də daha çox Rusiya ilə bağlı olduğundan, milliləşmə prosesinə bir müqavimət var idi. Digər tərəfdən, Moskva ilə iqtisadi və sosial-mədəni əlaqələrin hələ də saxlanması və ya saxlanmasına zərurət imperiyapərəst qüvvələrin, Kremlin sadiq nökərlərinin mövqeyini möhkəmləndirirdi.

Yeni iqtisadi münasibətlərə keçid də müəyyən çətinliklərlə bağlı idi. Neçə onilliklər ərzində insanların şüuru elə formalaşmışdı ki, dövlət mülkiyyətindən kənarda hər hansı bir mülkiyyət formasının mövcudluğuna heç cür

uyğunlaşa bilmirdi. Burjuaziyaya və bütövlükdə varlı adamlara qarşı nifrət hissi ictimai şüurda özünə möhkəm yer etmişdi. Ona görə də iş adamlarının hər hansı nailiyyəti çox vaxt nəinki təkcə əhali tərəfindən, hətta dövlət orqanlarında çalışan yüksək rütbəli məmurlar tərəfindən pis qarşılanırdı ki, bu da azad iqtisadi rəqabətin inkişafına əngəl törədirdi. Bununla bərabər, bazar iqtisadiyyatına keçid üçün heç olmazsa müəyyən ənənəvi zəmin var idi. Sovet dövründə "gizli iqtisadiyyat"ın və dövlət mülkiyyətinin bətnində öz fərdi mülkiyyətini və şəxsi maraqlarını güdməyə öyrəşmiş işbaz adamların mövcudluğu, bazarlarda peşəkar alverçilərin fəaliyyəti, ümumiyyətlə, alver psixologiyasının mövcudluğu xüsusi istehsal müəssisələrinin yaradılması və biznes üçün müəyyən mənada zəmin sayıla bilərdi.

Nəhayət, bu gün xüsusilə aktuallaşmış olan beşinci bir cəhəti də qeyd etmək yerinə düşərdi. Belə ki, keçid dövründə əhalinin ümumi inkişaf səviyyəsinin, ictimai şüurun və təfəkkür mədəniyyətinin yüksəlməsi mühüm şərtlərdən biridir. Sovet dövründən qalmış ateist dünyagörüşü və ona alternativ olan spesifik dindarlıq nümunəsi bazasında yeni dini dünyagörüşü və dünyəvi dəyərlər sistemi formalaşmalı idi. İcbari qaydada beyinlərə yeridilən kor-koranə ateizmə reaksiya kimi həqiqi dindən daha çox, mövhumat və fanatizm yarana bilərdi. Yəni bir qütbdən o biri qütbə keçid ehtimalı daha çox idi.

Belə bir şəraitdə kəskin keçidlər mövqeyi tutmaqdansa dünyagörüşünün tədrici dəyişilməsi və sağlam dini təsəvvürlərin və hisslərin formalaşmasına şərait yaradılması çox vacib idi. Məhz Heydər Əliyev dühasının sayəsində ölkəmiz bu kəskin keçidlərdən xilas ola bildi. Və indi də dinə qayıdış elmin, təhsilin və ümumiyyətlə, mədəniyyətin bütün sahələrinin inkişafı kontekstində həyata keçir. Hazırda Azərbaycanda bərqərar olan dini tolerantlıq, din və dünyəviliyin uzlaşdırılmış formaları məhz əsası Heydər Əliyev tərəfindən qoyulmuş incə bir siyasətin davamı və məntiqi nəticəsidir. Bu elə bir həssas sahədir ki, burada hər hansı bir ehtiyatsızlıq öncədən proqnozu çətin olan nəticələrə gətirib çıxara bilər.

Bu gün Misirdə, Tunisdə, Yəməndə və demək olar ki, əksər islam ölkələrində yaşanan siyasi böhran bir çox digər səbəblərlə yanaşı, vaxtında demokratik dəyərlərin və əhalinin ümumi mədəni səviyyəsinin inkişafı sahəsində yetərli tədbirlər görülməməsinin nəticəsidir. Belə ki, yüksək ideallar və əqidə aşkarlığı olmayan şəraitdə kütlə effekti üçün potensial zəmin yaranır. Yüksək intellektual səviyyə və savadlılıq dərəcəsi, siyasi mədəniyyət, tolerantlıq, demokratik dəyərlər dövlətçiliyin möhkəmlənməsi üçün ən mühüm şərtlərdir.

Azərbaycanda Heydər Əliyev elə bir təməl qoyub ki, heç bir siyasi təşviqat və mövhumatdan gələn fanatizm bu təməli sarsıda bilməz.

Müstəqilliyin ilk illərində ən böyük çətinliklər demokratik cəmiyyət quruculuğuna, yeni idarəçilik sisteminə adekvat düşüncə tərzinin hələ formalaşmaması, ictimai şüurun iqtisadi bazislə müqayisədə çox aşağı səviyyədə olması ilə bağlı idi. Hələ şüurlar dəyişməmiş azadlıq dərəcəsinin artması anarxiya meyilləri ilə nəticələnə bilərdi və belə də oldu. Azadlıqdan sui-istifadə meylləri geniş miqyas aldı. Vətəndaş cəmiyyəti əvəzinə vətəndaş itaətsizliyi və çoxhakimiyyətlilik formalaşdı.

SSRİ-dən ayrılaraq müstəqilliyə qədəm qoyduqda Azərbaycanın qarşısında çox ciddi bir alternativ dururdu. Elə bil ki, ölkəmiz bir-birinə əks olan iki qütbdən birini seçməli idi. Birincisi, sistemin dağılmasına baxmayaraq, yenə də Mərkəzdən ikiəlli yapışıb ondan nicat gözləmək, hər hansı müstəqil addım atmaqdan çəkinmək, köhnə buxovları saxlamaq təşəbbüsü. İkincisi, keçmişdən qalan hər nə varsa, onda imperiya nişanəsi görmək, hər şeyi dağıdaraq sıfırdan başlamaq təşəbbüsü.

Nə qədər təəssüflənməli olsaq da, Azərbaycan ilk dövlətçilik illərində bu ifrat birtərəfli meyillərin hər ikisini "sınaqdan keçirməli" olmuşdur.

Azərbaycanın müstəqil bir ölkə kimi ayağa qalxmasına, özünü dərk etməsinə, özünəməxsus inkişaf modeli hazırlayıb həyata keçirməsinə mane olan, iqtisadi, mədəni-mənəvi həyatın müstəqillik şəraitində öz məcrasına düşməsini ləngidən səbəblərdən biri müharibə idisə, digəri cəmiyyətdəki bu qarşıdurma, hər iki qütbü təmsil edən qüvvələrin hakimiyyət iddiaları idi. Bu iddialar müstəqilliyin ilk illərində ölkəmizə böyük ziyanlar vurdu. O vaxt rəhbərlikdə olan qüvvələrlə xalq hərəkatını təmsil edən, milli qeyrət və vətəndaşlıq mövqeyində olan qüvvələr qarşı-qarşıya dururdu. Birincilərdə vətəndaşlıq mövqeyi, ikincilərdə dövlətçilik təcrübəsi çatışmırdı. Həm böyük dünyagörüşü, rəhbərlik təcrübəsi olan, həm də xalqın həqiqi milli mənafeyini müdafiə etmək əzmində olan yeganə sinkretik qüvvə nə iqtidar, nə də müxalifət tərəfindən yaxına buraxılmırdı.

Xoşbəxtlikdən, bu taleyüklü yol ayrıcında, son məqamda xalq öz sözünü deyə bildi. O vaxt ölkəmizdə keçmiş SSRİ-nin dövlət quruculuğu təcrübəsinə hamıdan yaxşı bələd olan, onun üstünlüklərini və çatışmazlıqlarını ən yüksək pillədən görmüş olan və eyni zamanda, Azərbaycanın milli və regional spesifikasını, potensial imkanlarını və onların realizə yollarını hamıdan yaxşı bilən bir adamın rəhbərlik etməsi keçid dövrünün əsasən uğurla başa vurulmasına şərait yaratdı.

İndi Prezident İlham Əliyev müstəqil dövlətçilik tariximizin yeni mərhələsində Azərbaycanı ilk növbədə Heydər Əliyev ideyaları əsasında idarə etməklə, həm də bu ideyaları müasir dövrün tələblərinə uyğun surətdə

inkişaf etdirir. Ümumiyyətlə, müstəqilliyin taleyi üç əsas amildən asılıdır: dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadiyyatın dirçəldilməsi, mədəni-mənəvi dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsi. Bu amillərin üçü də əsasdır. Lakin onları necə sıraya düzməkdən, onların yerini və rolunu düzgün qiymətləndirməkdən çox şey asılıdır. Bu amillərdən hansının məqsəd, hansının vasitə, hansının təməl olduğunu aydınlaşdırmadan, düzgün strateji fəaliyyət proqramı müəyyənləşdirmək mümkün deyil.

Heydər Əliyevin çıxışları və əsərləri ilə diqqətlə tanış olsaq görərik ki, onun ən böyük nailiyyət saydığı hadisə Azərbaycanın müstəqilliyi, ən çox vurğuladığı və diqqət verdiyi vəzifə isə müstəqilliyin dönməzliyinin təmin edilməsi idi. Lakin dövlət quruculuğu Heydər Əliyevin fəaliyyət strategiyasında özlüyündə son məqsəd deyildi. Dövlətin möhkəmləndirilməsi ona görə bir nömrəli vəzifədir ki, o bizim müstəqil iqtisadi siyasətimizin və milli mənəviyyatımızın təminatçısı, qarantı ola bilsin. Ulu öndər dönə-dönə bildirirdi: "Əgər Respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz". İqtisadiyyatın inkişafı, adamların rifah halının yaxşılaşdırılması həmişə Heydər Əliyevin diqqət mərkəzində olmuşdur: "Biz həm ölkəmizin suverenliyini, ərazi bütövlüyünü qorumaq üçün çalışırıq, həm də vətəndaşlarımızın, xalqımızın rifahını yaxşılaşdırmağa, yaranmış vəziyyətdə müxtəlif və yeni formalardan istifadə edərək iqtisadiyyatı inkişaf etdirməyə çalışırıq". Heydər Əliyev fikrini bununla bitirmir və məsələyə tam dialektik bir mövqedən yanaşmaqla, sosial-iqtisadi proqramların həyata keçirilməsinin də öz növbəsində, dövlətçiliyin möhkəmləndirilməsi, ictimai-siyasi sabitliyin bərqərar olması, mədəni-mənəvi həyatın təşəkkülü üçün bir şərt olduğunu qeyd edir: İqtisadiyyat son məqsəd kimi yox, şərt kimi, təməl kimi, vasitə kimi götürülür. Siyasi və mədəni-mənəvi aspektdəki nailiyyətlərin də çox vaxt iqtisadi təmələ söykəndiyi vurğulanır: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. "

Bəli, iqtisadiyyatın inkişafı da dövlətin möhkəmləndirilməsi kimi, olduqca vacib şərtdir. Lakin, nə iqtisadiyyat, adamların güzəranı, rifah halı, nə də dövlət quruculuğu müstəqillik yolunun son məqsədi, mənzil başı ola bilməz. Əgər xalq dövlət qurur, iqtisadiyyatı inkişaf etdirir, sərhədləri möhkəmləndirirsə və bu sərhədlər daxilində özünə yad bir mənəviyyat saxlayırsa, bu hələ müstəqillik deyil. Mənəvi buxovlardan azad olmayan, öz milli mənliyini dərk etməyən xalq azad sayıla bilməz.

Heydər Əliyevin əsərlərini oxuyub dərindən təhlil edərkən bir daha əmin olursan ki, müstəqilliyin ali məqsədi milli-mədəni və mənəvi dəyərlərin bərpa olunması, xalqın özünü dərk etməsi, öz mənliyinin sahibi olmasıdır. Mənəviyyatın qorunması üçün ən mühüm şərtlərdən biri iqtisadiyyatın inkişaf etdirilməsidir. İqtisadi tərəqqini təmin etmək üçün isə dövlətçiliyin möhkəmləndirilməsi lazımdır. Möhkəm dövlətçilik təməli isə ancaq ictimai-iqtisadi sabitlik şəraitində, beynəlxalq nüfuzun yüksəldilməsi və beynəlxalq ictimai-iqtisadi əlaqələr sisteminə daxil olmaq sayəsində mümkündür. Heydər Əliyev nədən başlayıb, nəyə doğru getmək lazım olduğunu çox gözəl bilirdi. Onun bu biliklərinə indi də böyük ehtiyac vardır. Bu gün Müstəqil Azərbaycanın dövlət quruculuğu sahəsində zəruri olan ən mühüm addımlar artıq atılmışdır. Azərbaycanda ictimai-siyasi sabitlik əldə edilmişdir, əmin-amanlıq atmosferi hökm sürür, iqtisadi baxımdan dövlət mülkiyyətinə və planlı təsərrüfata əsaslanan sosialist ictimai-iqtisadi münasibətlərindən daha çox dərəcədə xüsusi mülkiyyətə və azad rəqabətə əsaslanan bazar iqtisadiyyatına keçid prosesi tamamlanmışdır. Və bütün bu uğurların qazanılmasında Heydər Əliyev ideyalarının və bu gün ölkəmizdə uğurla həyata keçirilən siyasi kursun möhkəm təməllərə əsaslanmasının böyük əhəmiyyəti vardır.

Müasir mərhələdə əsas məsələ tarixin kəsilməzliyini təmin etmək, uzun müddətə hesablanmış siyasi və iqtisadi quruculuq planlarının həyata keçirilməsində fasilələrə və geriləmələrə yol verməmək, Heydər Əliyev dühasından qaynaqlanan strateji inkişaf xəttini davam etdirməkdir.

Bu gün tam əminliklə deyə bilərik ki, həm böyük rəhbər, komandan, siyasət qrossmeysteri, həm böyük natiq, filosof, ideoloji lider, həm də iqtisadi və mədəni-mənəvi quruculuq sahələrində əvəzsiz iz qoymuş bu dahi şəxsiyyətin ideyaları da tarixin yaddaşına həmişəlik həkk olunmuşdur.

**“Xalq qəzeti”.-**2011.-8 may.-N 99.-S.7.

# MÜASİRLƏŞMƏ VƏ DEMOKRATİKLƏŞMƏ: HEYDƏR ƏLİYEVLƏ BAŞLANAN YOL

**Cavanşir FEYZİYEV,**
Milli Məclisin deputatı, fəlsəfə doktoru

**Heydər Əliyev Azərbaycanın böyük müstəqilliyinin bünövrəsini, "demokratizm və müasirlik" düşüncəsinin təməlini iyirminci əsrin yetmişinci illərindən tədricən, mərhələ-mərhələ, onun bütün perspektivlərini əvvəlcədən düşünə-düşünə, həmin gələcək perspektivlər üçün intellektual potensialı hazırlaya-hazırlaya qoymuşdu.**

**Müstəqil və demokratik Azərbaycan Respublikanın qurulması ilə başa çatan milli siyasi tariximizin ən yeni dövrünün ən əlamətdar hadisələri Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan dövlətini tamamilə yeni əsaslar üzərində qurmaq siyasətini qarşısına məqsəd qoymuş ulu öndər həm də bu tarixi prosesin böyük ideoloqu kimi onun əsas istiqamətlərini müəyyənləşdirmişdi. Həmin istiqamətlərin bir-biri ilə bağlı iki mühüm cinahı - müasirləşmə və demokratikləşmədir. Heydər Əliyevin siyasi kursuna uyğun olaraq bu vəzifənin yerinə yetirilməsi ölkənin müstəqil şəkildə addımlaya biləcəyinə zəmanət qazanmaq demək idi. Bu bir həqiqətdir ki, yalnız müasirləşmə və demokratikləşmə istiqamətində ciddi uğurlar əldə etməklə dünya birliyinin demokratik düşərgəsi tərəfindən etimadla qarşılanmaq, inkişaf layihələrini həyata keçirmək və məhz bu düşərgə tərəfindən dəstək qazanaraq, torpaqlarının iyirmi faizi işğal olunmuş gənc bir dövləti ayaq üstə qaldırmaq, irəlilətmək və dünya birliyinə inteqrasiya etmək olardı. Buna görə də ümummilli liderimiz müasir və demokratik Azərbaycan dövlətini yaratmaq üçün ölkənin bütün maddi və mənəvi-intellektual potensialını hərəkətə gətirməyə başladı.**

Buradaca qeyd edək ki, Azərbaycanın Böyük Müstəqilliyinin bünövrəsini, "demokratizm və müasirlik" düşüncəsinin təməlini Heydər Əliyev iyirminci əsrin yetmişinci illərindən tədricən, mərhələ-mərhələ, onun bütün perspektivlərini əvvəlcədən düşünə-düşünə, həmin gələcək perspektivlər üçün intellektual potensialı hazırlaya-hazırlaya qoymuşdu.

Dünya proseslərinin mahiyyətini düzgün qiymətləndirən Heydər Əliyev 1993-cü ildən etibarən öncədən başladığı Böyük Yolun "ikinci nəfəsini" açdı, yeni, müstəqil Azərbaycan dövlətinin banisi olaraq, bu dövlətin strategiyasını həmin proseslərin ən aparıcı tendensiyalarını özündə ehtiva edən siyasi xəttin önəmli cinahına çevirdi. Məhz bu dövrdən başlayaraq, milli və qlobal mənafelərin harmoniyası Azərbaycan siyasətinin humanist və demokratik mahiyyətini təsdiq edən bir uğurlu istiqamət kimi müəyyənləşdi.

Heydər Əliyevin siyasi fəaliyyəti elə başlanğıcdan ölkəmizin yerləşdiyi regionda beynəlxalq münasibətlər sisteminin yeni konfiqurasiyada qurulmasına - yəni Azərbaycanın müasirləşmə və demokratikləşmə kursu götürən, siyasi islahatlardan çəkinməyən bir dövlət kimi tanıdılmasına yönəldi. Qurucusu olduğu Azərbaycan dövlətinin müstəqillik uğrunda qətiyyətli mübarizəsi regionda qüvvələr balansını nizamladı, yenicə müstəqillik əldə etmiş dövlətlərin siyasi özünütəşkilinə, iqtisadiyyatını qurmasına, müharibə və konfliktlər zəncirinin həlqəsinə yox, müasirləşmə və demokratikləşmə hərəkatının subyektinə çevrilməsinə şərait yaratdı. Heydər Əliyev Xəzər və Cənubi Qafqaz regionunda Sülh və Quruculuq missiyasının Lideri oldu. Baxmayaraq ki, rəhbərlik etdiyi dövlətin bir parçası Ermənistan tərəfindən işğal olunmuşdu, Heydər Əliyev bunu etdi. Ona görə etdi ki, ölkəsinin nəfəs dərməsinə imkan yaratsın, qlobal güclərin marağını regionda balanslaşdırsın, Azərbaycan cəmiyyətini müstəqil dövlət quruculuğuna səfərbər etsin, ölkə iqtisadiyyatını müasir əsaslarda quraraq onu dünya iqtisadiyyatının ayrılmaz tərkib hissəsinə çevirsin.

Bu məqsədlə müstəqilliyimizin ilk onilliyi ərzində ümummilli liderin rəhbərliyi altında həyata keçirilmiş quruculuq və islahat tədbirləri nəticəsində Azərbaycanda bütün zəruri dövlətçilik təsisatları yaradıldı və hüquqi dövlət institutları formalaşdırıldı. Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməsini qarşısına məqsəd qoymuş Heydər Əliyev hələ o vaxtlar dönə-dönə qeyd edirdi ki, Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, özünün zəngin tarixi ənənələrindən bəhrələnməklə yanaşı, sivil dünya demokratiyasından, universal ümumbəşəri dəyərlərdən, vətəndaş cəmiyyəti praktikasından istifadə edərək, demokratik dövlət quruculuğu yolu ilə getməlidir.

Heydər Əliyev keçid dövrünün reallıqları şəraitində böyük reformasiya hərəkatına başladı. Köhnə inzibati amirlik sisteminin ləğvindən sonra bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi, Azərbaycan iqtisadiyyatının qlobal iqtisadi sistemə inteqrasiya olunması istiqamətində önəmli addımların atılması bütövlükdə ölkə iqtisadiyyatının yeni iqtisadi münasibətlər kontekstində inkişafına stimul verən səbəblər oldu. Əlbəttə, bu o qədər də həyata keçirilməsi asan olan məsələlər deyildi. Uzun müddət sovet totalitar rejiminin

despotik idarəçiliyi altında qalan dövlətin tədricən modernləşdirilməsi prosesində yeni iqtisadi modelin özünü doğrultması, sərbəst bazar iqtisadiyyatının, azad sahibkarlığın və siyasi plüralizmin bərqərar edilməsi, insanlarda bazar iqtisadiyyatı, xüsusi mülkiyyət, sahibkarlıq anlayışları barədə formalaşmış mənfi rəyin aradan qaldırılması düzgün və mərhələli siyasətin həyata keçirilməsini tələb edirdi. Tarixin bütün dövrlərində olduğu kimi bir iqtisadi - siyasi sistemdən digərinə keçilməsi hər zaman ağrılı bir prosesdir. Tarixin bu sınağından da Azərbaycanın üzüağ çıxması məhz ümummilli lider Heydər Əliyevin apardığı uğurlu və uzaqgörən siyasət nəticəsində mümkün oldu.

Respublika iqtisadiyyatının modernləşdirilməsi istiqamətində görülən tədbirlərin səmərəliliyini artırmaq istiqamətində ən mühüm addımlardan biri də bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə inkişaf etmiş dövlətlər və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq münasibətlərinin qurulması və birgə layihələrin həyata keçirilməsi oldu. Belə ki, Dünya Bankı və Beynəlxalq Valyuta Fondu kimi beynəlxalq təşkilatlar Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsinə maliyyə yardımı ayırdılar. Beləliklə, iqtisadiyyatın bütün sahələrində həyata keçirilən radikal islahatlar nəticəsində ölkədə makroiqtisadi sabitlik təmin edilmiş oldu və getdikcə sürətlənən dinamik iqtisadi inkişafın təməli yaradıldı. Bununla yanaşı, xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb olunması istiqamətində həyata keçirilən tədbirlər iqtisadi dirçəlişə təkan verən amillərdən biri oldu. 1995-ci ildən etibarən bu günə qədər Azərbaycan iqtisadiyyatına 90 milyard dollara yaxın investisiya qoyulması dövlətimizin yatırımlar üçün çox məqbul və cəlbedici ölkəyə çevrildiyini göstərən çox önəmli göstəricidir.

Əlbəttə, cəmiyyətin maddi və mənəvi həyatında dəyişiklik bir-birini tamamlayan proseslərdir. Ona görə də Heydər Əliyev Azərbaycanda iqtisadi strukturu modernləşdirdikcə, sosial-mədəni strukturu da yeniləşdirmək vəzifələrinin dönmədən həyata keçirilməsi siyasətini davam etdirirdi.

Heydər Əliyevin uzaqgörənliyi sayəsində Azərbaycan özünəməxsus bir təkamül məntiqi ilə milli siyasət və mədəniyyət platforması üzərində qərarlaşan dövlətə çevrilirdi. Artıq onu bu yoldan döndərməyə heç kimin gücü çatmazdı!

Heydər Əliyevin müasirləşmə və demokratikləşmə konsepsiyası həm də milli humanitar siyasətin mahiyyətində özünü göstərməli və onun hərəkətverici qüvvəsinə çevrilməli idi. Ölkə rəhbərliyinin və intellektual həyatımızdakı yenilikçi çağırışların tələbini ulu öndər belə konseptuallaşdırmışdı: Azərbaycanda ictimai və humanitar elmlər sahəsində aparılan islahatlar yüksək inkişaf etmiş dünya ölkələrində həmin sahələrdə aparılan islahatların xarakter və keyfiyyətinə adekvat olmalıdır.

Bu strategiya istiqamətində inkişaf Azərbaycan milli elitasının dünya elm məkanına inteqrasiyası üçün ölkəmizdə yaradılan şəraiti gündən-günə yaxşılaşdırır və intellektual əməklə məşğul olmaq həm dövlət , həm də cəmiyyət tərəfindən layiq olduğu səviyyədə dəyərləndirilirdi. Deməli, bu sahədə də biz dünya elminin yüksək nüfuz dərəcələrinə yaxınlaşmaq və həmin səviyyələrdə fəaliyyət göstərmək, əldə olunan nəticələri nəinki ölkə, həm də dünya ictimaiyyətinə çatdırmaq üçün imkanlar əldə edirdik. Heydər Əliyevin əsasını qoyduğu milli humanitar siyasətin konsepsiyasına uyğun olaraq, böyük ənənələrdən qaynaqlanan Azərbaycan elmi müasir dünya elminin ön sıralarında addımlamaq üçün özünün bütün intellektual potensialını konkret və gərəkli istiqamətlər üzrə istiqamətləndirməyə başladı. Azərbaycan Respublikasının humanitar siyasəti ölkəmizdə artıq strukturlaşmış humanitar elm sahələrinin yeni keyfiyyətdə inkişafını nəzərdə tuturdu: bu elmlər Azərbaycan cəmiyyətinin mədəni-intellektual həyatının yüksək səviyyəsindən çıxış etməli, milli mədəniyyət tariximizin yeni elmi metodlarla araşdırılmasını təmin etməli, onun müasir inkişafının problemlərini diqqətlə öyrənməli, bütövlükdə mədəniyyət düşüncəsini hərəkətə gətirməyə qadir olan stimullaşdırıcı amilləri təyin etməli idi.

Burada Heydər Əliyevin müəyyən etdiyi ən başlıca vəzifə, heç şübhəsiz ki, Azərbaycan humanitar elmləri ilə dünya humanitar elmlərinin və elmi mərkəzlərinin sıx əlaqəsini yaratmaq, dünyada gedən qlobal siyasi, iqtisadi, mədəni-mənəvi, elmi-intellektual prosesləri və onların necə və hansı istiqamətlərdə öyrənildiyini diqqətlə təhlil edərək, zəngin, analitik, sistemli düşüncə texnologiyalarına malik olan, başqa ölkələrin də elm mütəxəssisləri tərəfindən qəbul, təqdir və istinad edilən beynəlxalq nüfuzlu elm statusunda möhkəmlənmək idi.

Mədəniyyət, elm və təhsil sahəsində beynəlxalq əlaqələrin yaradılması və genişləndirilməsinin yenicə müstəqilliyini əldə edən gənc Azərbaycan Respublikası üçün necə önəm daşıdığını və həmin əlaqələrin ölkə vətəndaşlarının mənəviyyatının yüksəlişinə necə böyük təsir göstərəcəyini ümummilli lider Heydər Əliyev vaxtında Azərbaycan ictimaiyyətinin diqqətinə çatdırmışdı: "Mədəniyyətimizin, elmimizin, təhsilimizin insanların mənəviyyatını daha da yüksəklərə qaldırması üçün mədəni, elmi-texniki əlaqələrin inkişaf etdirilməsi çox zəruri vəzifələrdən biridir" (Heydər Əliyev. Müstəqillik yolu, Bakı, "Azərbaycan" nəşriyyatı, 1997, s. 62). Heydər Əliyev həm də bu əlaqələrin qlobal miqyasda insanlararası münasibətlərin inkişafındakı rolunu yüksək qiymətləndirmişdi: "Ölkələr arasında dostluq münasibətlərinin möhkəmlənməsinə mədəniyyət və elm sahəsində əlaqələrin böyük təsiri var" (Müstəqillik yolu, Bakı, "Azərbaycan" nəşriyyatı, 1997, s. 58).

Əgər dünya iqtisadiyyatının inkişafında Azərbaycan nefti mühüm əhəmiyyət daşıyırsa, deməli, dünyanın qabaqcıl elmi axtarışlarında, xüsusilə qlobal strategiyaların hazırlanmasında da Azərbaycan intellekti bu və bundan da yüksək missiyada iştirak edə bilər. Neft və İntellekt! İkisi də enerjiyə çevrilir: biri maddi, digəri mənəvi enerjiyə. Neft kapitalı milli inkişafımız üçün nə qədər zəruridirsə, elm kapitalı da bir o qədər və ondan da artıq zəruridir. Neft bir vaxt tükənə bilər, zəka sərvətləri isə heç vaxt tükənmir, işləndikcə artır. "Neft qızılını" "İnsan qızılına" çevirmək ideyasının gerçəkləşməsi də məhz bu maddi və mənəvi sərvətlərimizin düzgün idarə olunmasından asılıdır. Eyni zamanda, bizim tarixi inkişaf təcrübəmiz də milli intellekti dünya standartları səviyyəsinə qaldırmaq üçün imkanların kifayət qədər böyük olduğunu təsdiq edir: dünya sivilizasiyasının inkişafının bütün mərhələlərində Azərbaycan mədəniyyətinin planetimizin hər hansı bir nöqtəsində mövcud olan zəngin mədəniyyətlə müqayisə edilə biləcək üstünlükləri olub. Ulu öndər məhz bu həqiqətlərin işığında, Azərbaycan elminin modernləşməsi istiqamətində mühüm siyasi qərarlar qəbul edirdi.

Eyni zamanda, unutmayaq ki, Azərbaycanda elmin institutlaşmasının təqribən yüz ilinin son qırx ili Heydər Əliyevin rəhbərliyi dövrünə təsadüf edir. Heydər Əliyev Azərbaycanın rəhbəri olduğu bütün zamanlarda elmin inkişafı ümummilli inkişafın mühüm tərkib hissəsi və onun aparıcı istiqaməti olmuşdur. Müasir Azərbaycan elminin institutlaşması, milliləşməsi və onun inkişaf strategiyalarının müəyyənləşməsi məhz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Heydər Əliyev Azərbaycan elminin öndər təşkilatçısı, strateqi və ideoloqudur. Azərbaycan elminin, humanitar mədəniyyətimizin yüksək dünya standartlarına qaldırılmasının əsas təşəbbüskarı olan ümummilli lider bu sahələrdə qazanılan bütün nailiyyətlərlə fəxr edirdi. Həmin nailiyyətlərin bir-birinə təməl yaratması, davamlı olması və həmişə yüksələn xətt üzrə artması ideyasının yaradıcısı da o özü idi.

Ulu öndər Heydər Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə görüşdəki nitqində (Prezident Sarayı, 31 yanvar 1997) söyləmişdi: "Bizim böyük elmimiz Azərbaycanın istedadlı insanları, alimləri tərəfindən, elmi tədqiqat institutları, təşkilatları, Elmlər Akademiyası tərəfindən, sahə institutları tərəfindən yaranmış elmdir. Ona görə də Azərbaycanın güclü elmi potensialı haqqında həmişə böyük iftixar hissi ilə danışarkən, şübhəsiz ki, birinci növbədə elmi nailiyyətlərimizi nəzərdə tuturuq və xüsusən Elmlər Akademiyasının əldə etdiyi nailiyyətləri nəzərdə tuturuq" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 8-ci kitab, Bakı: Azərnəşr, 1998, s. 360). Burada Heydər Əliyev üç başlanğıca və onların vəhdətinə diqqəti yönəldir: elm, elmin təşkilatlanması və elmin yaradıcısı olan insanlar. Böyük humanist olan ümummilli lider insan amilini inkişafın əsas meyarı və stimulu kimi təqdim edir. Azərbaycanı dünyanın "neft akademiyası" adlandıran Heydər Əliyev onu həm də planetin böyük mədəniyyət mərkəzlərindən biri hesab edirdi.

Ümummilli lider Azərbaycanda ictimai-siyasi, elmi və mədəni həyatın bütün sahələrinin bir-biri ilə bağlılığı məsələlərinə kompleks yanaşır, tarixi zaman koordinatlarında Azərbaycanın keçmişini, bu gününü və gələcəyini tamlığında görən milli dünyagörüşünü formalaşdırırdı. Azərbaycan elminin gələcəyinə nikbin baxışını isə belə ifadə etmişdi: "Xalqımızın, mədəniyyətimizin, incəsənətimizin, elmimizin çox gözəl keçmişi, tarixi və bu günü vardır. Mən əminəm ki, bundan da gözəl gələcəyi olacaqdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 8-ci kitab, Bakı: Azərnəşr, 1998, s. 360); "Azərbaycanın bugünkü mədəniyyəti dahi şəxsiyyətlərimizin yaratdığı və əsrlərdən-əsrlərə keçən mədəniyyətimizə, elmimizə, mənəviyyatımıza əsaslanır" (Yenə orada).

Heydər Əliyev Azərbaycanın elm və mədəniyyət yaradıcılarının fəaliyyətini həmişə dünya əhəmiyyətli hadisə və bəşər tarixi boyunca davam edən proses kimi dəyərləndirir, dünya maarifçilik hərəkatında Azərbaycan mütəfəkkirlərinin layiqli yerini iftixarla nəzərə çarpdırırdı: "Azərbaycan xalqı bəşər tarixinə böyük, dəyərli, dahi simalar bəxş etmiş, onların əsərləri, yaradıcılığı dünya elmini, mədəniyyətini zənginləşdirmiş, insanları maarifləndirmişdir" (Heydər Əliyev. Müstəqillik yolu, Bakı, "Azərbaycan" nəşriyyatı, 1997, s. 62). Bütün bu fikirlər onu göstərir ki, ulu öndər Azərbaycanda müasirləşməni öz kökündən, mədəniyyətindən, dilindən, adət-ənənələrindən ayrılmadan inkişaf etmək, modernləşmək kimi dərk edir və gələcək nəsillərə də bu düşüncəni və mövqeyi tövsiyə edirdi.

Azərbaycanın müasirləşməsi və demokratikləşməsi siyasətinin səylə aparılması o demək idi ki, ölkəmizin demokratik dünya birliyinə inteqrasiyası qanunauyğun bir proses yolu ilə baş verəcək. Heydər Əliyevin sonradan ölkə rəhbərliyi tərəfindən siyasi kursa və strategiyaya çevriləcək ideyası belə idi: "Azərbaycan Respublikası dünya birliyi ilə tam hüquqlu inteqrasiyaya istiqamət götürmüşdür və bunun üçün bütün imkanlara malikdir"; "Avropanın ayrılmaz hissəsi olan Azərbaycan özünün bütün tarixi ərzində onunla əlaqələri inkişaf etdirmişdir".

Ümummilli liderimiz Heydər Əliyev böyük dövlətçilik və humanist idarəçilik ənənələri olan Azərbaycan Respublikasının milli mənafelərini həmişə beynəlxalq birliyin mənafeləri ilə bərabər tutur və qlobal siyasi konsensusun əldə edilməsindən ötrü beynəlxalq təşəbbüslərin dünya dövlətlərinin həmrəylik ideyası kimi meydana çıxmasını qətiyyətlə dəstəkləyirdi. O, demək olar ki, bu məqsədlə keçirilən bütün beynəlxalq

tədbirlərdə təkcə bir dövlət başçısı kimi deyil, həm də dünyanın siyasi gələcəyini düşünən, qlobal sivilizasiya məkanında milli subyektlərin özünəməxsus rolunu görən bir mütəfəkkir olaraq öz mövqeyini bildirirdi. Heydər Əliyev Kopenhagendə Sosial Tərəqqi Naminə Yüksək Səviyyədə Ümumdünya Görüşündəki tarixi çıxışında da (12 mart 1995) məhz beynəlxalq əməkdaşlığa geniş meydan açmağa çağıran humanist mövqeyini bəyan etmişdi: "Bəşəriyyət tarixində ilk dəfədir ki, dünyanın dövlət və hökumət başçıları dünyanın bütün xalqlarının sosial rifahına nail olmaq naminə razılaşdırılmış siyasət yürütmək məqsədi daşıyan məclisə toplaşmışlar. Bu sübut edir ki, bəşəriyyət soyuq müharibə, qlobal hərbi və ideoloji qarşıdurma başa çatandan sonra öz inkişafının yeni, daha yüksək mərhələsinə qədəm qoyur" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 3-cü kitab, Bakı: Azərnəşr, 1997, s. 250). Heydər Əliyev bəşəriyyətin tarixi həyatında qlobal inkişafın yeni fazasının başlamasını duyan və bu mərhələnin yalnız beynəlxalq birliyi və əməkdaşlığı möhkəmləndirən tendensiya üzrə davam etməsinə ideoloji stimul verən mütərəqqi düşüncəli şəxsiyyətlərdən idi. Biz deyə bilərik ki, mütəfəkkir siyasətçinin bu ideyaları təkcə Azərbaycanın deyil, bütün dünyanın müasirləşməsi və demokratikləşməsi prosesinin ümumi ruhunu dəqiq əks etdirən düşüncələrdir.

Ümummilli lider Heydər Əliyev, eyni zamanda, müasir dövrümüzün aparıcı tendensiyası olan qloballaşmaya münasibətdə onu modernləşdirici inkişaf prosesinə çevirən amillərin mahiyyətinə bələd olduğundan, burada "güc ekspansiyası" ilə deyil, məhz qlobal demokratik mühitin formalaşması ilə əsl dünya birliyinin yaradılmasını mümkün sayırdı.

Bu mövqe dünyanın böyük mütəfəkkirlərinin humanist mövqeyi ilə üst-üstə düşür. Heydər Əliyevin siyasi fəlsəfəsi Azərbaycanın siyasi quruculuğu ilə bağlı fikirlərlə nə qədər zəngindirsə, bir o qədər də dünya dövlətlərinin planetar birliyinin möhkəmləndirilməsi, beynəlxalq səviyyədə demokratiyanın gücləndirilməsi, müasirliyin etiket kimi qəbul edilməsi yox, həyat tərzinə çevrilməsi ideayaları və amalları ilə zəngindir. Böyük humanist dünyanın tarixi inkişafına həmişə qlobal yanaşmış və demokratik ideallar uğrunda birləşmiş bəşəriyyətin necə böyük bir mənəvi güc yaratdığına inam bəsləmiş, ona doğru aparan yolda Lideri olduğu ölkəni - Azərbaycanı öncül görməyə çalışmışdır.

Belə bir prinsipial mövqe bu gün də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyəti nəticəsində daha da dərinləşmiş və dönməz olmuşdur. Bu gün Avropaya inteqrasiya etmək, həyat normalarımızı, yaşayış standartlarımızı Avropa keyfiyyətləri ilə zənginləşdirmək ölkəmizin strateji inkişaf yolu kimi qəbul olunmuşdur. Bu standartlar və ölçülər isə, heç şübhəsiz ki, daha çox yüksək inkişaf etmiş demokratik cəmiyyət anlayışları ilə bağlıdır. Ölkəmizin siyasi, ideoloji və mənəvi həyatı dünyada müasirləşmə və demokratiya hərəkatının bəşəri dəyərlərindən bəhrələnərək inkişaf etməyin praktikasını uğurla mənimsəməkdədir. Biz Heydər Əliyev siyasətinə sadiq olaraq bəşəriyyətin qlobal inteqrasiyaya - modern və demokratik dünya dövlətlərinin birliyinə istiqamətlənən yoluna daha rasional yanaşmağa çalışmalı, milli demokratiyanı dərinləşdirməklə ölkəmizi öz müstəqil siyasəti, böyük mədəniyyəti, tükənməz quruculuq enerjisi ilə dünya inkişafının avanqard sıralarına çıxarmaq üçün səy göstərməliyik. Bu müqəddəs missiyanın layiqincə həyata keçirilməsi üçün Heydər Əliyev siyasətinin dönməz davamçısı Prezident İlham Əliyevin ətrafında sıx birləşmək ulu öndərin müasirlik və demokratiya ideallarının tam qələbəsinin zəmanətidir.

**“Xalq qəzeti”.-**2011.-8 may.-N 99.-S.13.

# AZƏRBAYCAN ELMİ VƏ TƏHSİLİNDƏ UĞURLU İSLAHATLARIN MÜƏLLİFİ

**Abel MƏHƏRRƏMOV,**
Bakı Dövlət Universitetinin rektoru, akademik,
Milli Məclisin deputatı

**Hər bir xalqın tarixində müstəsna xidmətləri olan böyük şəxsiyyətlərin elm və təhsilə münasibəti, bu sahələrin inkişafına verdikləri töhfələr onların əbədiyaşarlığını təmin edən başlıca amillərdən biridir. Müasir Azərbaycan dövlətinin qurucusu ümummilli lider Heydər Əliyev də idarəçiliyinin bütün mərhələlərində elm və təhsilin inkişafına xüsusi qayğı ilə yanaşmış, ilk növbədə xalqın intellektual gələcəyini düşünmüşdür. Bu sahədə qazanılan nailiyyətləri dövlət quruculuğu prosesinin vacib şərti, etibarlı təminatı hesab edən ulu öndər milli təhsil sisteminin mütərəqqi prinsiplər əsasında inkişafı naminə bütün zəruri tədbirləri həyata keçirmişdir.**

Dövrün tələblərinə cavab verən fəal maarifçilik kursunun həyata keçirilməsi, mütərəqqi yeniliklərin tətbiqi yolu ilə milli təhsil sisteminin müasirləşdirilməsi, dövlət idarəçiliyi üçün yüksək mənəvi-əxlaqi keyfiyyətləri, intellekti, savadı ilə fərqlənən ixtisaslı kadrların yetişdirilməsi ulu öndər Heydər Əliyevin fəaliyyətinin bütün mərhələlərində prioritet məsələlər olmuşdur. Ümummilli liderin hələ Azərbaycana rəhbərliyinin birinci dövründə böyük uzaqgörənliklə həyata keçirdiyi elm, təhsil və mədəniyyət siyasəti müstəqillik illərində milli ziyalı elitasının intellektual potensialının yüksəkliyində özünü göstərməklə, aparılan islahatların praktik nəticələr verməsini təmin etmişdir. "Təhsil millətin gələcəyidir" - deyən müstəqil Azərbaycan dövlətinin qurucusunun ötən əsrin 70-80-cı illərində respublikamızın elm və təhsil sistemində yaratdığı möhkəm bünövrənin, dəyərli kadr potensialının, yüksək diqqət və qayğının adekvat əks-sədası çağdaş tariximizdə bu sahənin ən möhtəşəm izlərinə çevrilmişdir. Böyük strateq məhz bu illərdə təhsil sisteminin tənəzzüldən çıxarılması və ölkənin gələcək inkişafının elmi təməl üzərində qurulması, respublikanın intellektual resurslarının güclənməsi üçün səylə çalışmışdır. Həmin dövrdə respublikada məktəb tikintisi prosesinin sürətlənməsi, maarif işinin yüksək səviyyədə təşkili, ixtisaslı kadrlar hazırlayan yeni ali məktəblərin açılması, fundamental və humanitar elmlərin inkişafı, əldə olunan kəşflərin, ixtiraların iqtisadiyyatın bütün sahələrində tətbiqi ulu öndərin təhsil siyasətinin əsasını təşkil etmişdir.

Böyük rəhbər keçmiş İttifaqın iqtisadiyyatı üçün əlverişli xammal bazasına çevrilmiş Azərbaycanın yeni inkişaf strategiyasını böyük uzaqgörənliklə işləyib həyata keçirmişdir. Bunun nəticəsi kimi bir sıra əsas göstəricilər üzrə geridə qalmış Azərbaycan qısa müddətdə inkişafın yeni mərhələsinə qədəm qoyaraq tez bir zamanda keçmiş İttifaqın qabaqcıl respublikalarından birinə çevrilmiş, milli gəlir səviyyəsini əhəmiyyətli dərəcədə artıra bilmişdir. Bugünkü müstəqil Azərbaycan dövlətinin iqtisadi-siyasi əsaslarının, milli kadr potensialının formalaşması, ölkədə strateji əhəmiyyətli sənaye və istehsal müəssisələrinin açılması da məhz ötən əsrin 70-80-ci illərinə təsadüf edir. Heydər Əliyevin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri məhz Azərbaycanda inşa olunmuş, bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsasları formalaşdırılmışdır.

Ulu öndər Heydər Əliyev kosmopolit ideyaların zehinlərə zorla yerləşdirildiyi bir dövrdə milli məfkurənin qorunub saxlanılması, habelə azərbaycançılığın ən mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi sahəsində də mühüm tədbirlər həyata keçirmişdir. Heydər Əliyev üçün ana dili azərbaycançılığın başlanğıc məqamı, təməl pirinsipi olmuşdur. Müdrik rəhbər yaxşı bilirdi ki, xalqa milli-mənəvi dəyərlərini aşılamaq üçün ona ilk növbədə öz dilini qaytarmaq və sevdirmək lazımdır. Rus dilinin dövlət dili olmasına rəğmən, ulu öndər həmin dövrdə bütün rəsmi nitqlərini Azərbaycan dilində edir, bunu rəhbər vəzifəlilərin hər birindən tələb edirdi. Hələ 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiya layihəsi qəbul edilərkən ulu öndərin Azərbaycan dilinin bu ali sənəddə ana dili kimi təsbitlənməsi və qorunub saxlanılması sahəsində nümayiş etdirdiyi cəsarəti də xüsusi xatırlanmalıdır. Bununla bağlı Kreml "emissarları"nın dəfələrlə Bakıya gələrək Heydər Əliyevi fikrindən daşındırmağa səy göstərdiyini, lakin məqsədlərinə nail olmadıqlarını da mühüm fakt kimi vurğulamaq lazımdır. Eyni zamanda ümummilli lider Heydər Əliyevin ötən əsrin 70-ci illərində nəşr olunmuş 3 cildlik "Müasir Azərbaycan dili" dərsliyinə Dövlət mükafatı verməsi də xalqın milli şüurunun formalaşmasına mühüm töhfə olmuşdur.

Faktlar göstərir ki, əgər sovet hakimiyyətinin ilk illərindən etibarən Azərbaycanda rus dilində təhsil alanların sayı dinamik surətdə artırdısa, bu zərərli tendensiyaya məhz ötən əsrin 70-ci illərinin əvvəllərində son qoyulmuşdur. Bu dinamika Azərbaycan dilində təhsil alanların say artımı hesabına kəskin şəkildə azalmış, ana dilində elmi nəşrlərin sayı çoxalmış, elmi tədqiqatların və araşdırmaların məhz bu dildə aparılması

dəstəklənmişdir. "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir" - deyən Heydər Əliyev çox sonralar Azərbaycan dilinin inkişafı üçün gördüyü tədbirləri belə izah edirdi.

Xüsusi vurğulamaq istərdim ki, Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu Heydər Əliyevin Azərbaycana birinci rəhbərlik dövrü universitet həyatında bilik və elmin zirvələrinə doğru yüksəliş illəri sayılır. Həmin illərdə milli-mütərəqqi fikrin, ictimai düşüncənin başlıca mərkəzi kimi çıxış etməklə flaqman ali məktəb statusunu qoruyub saxlayan, milli kadr hazırlığında əsas yükü üzərinə götürən BDU-ya (o zaman Azərbaycan Dövlət Universiteti) diqqət və qayğının artırılması, bu təhsil ocağının fəaliyyətinin gücləndirilməsi Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Heydər Əliyev müdrik rəhbər kimi yaxşı bilirdi ki, universitet auditoriyalarında, kafedralarında işləyən, dərs verən müəllimlər Azərbaycan xalqının mənliyinin, milli şüurunun, milli ruhunun inkişaf etdirilməsi prosesində müstəsna rol oynayırlar.

Ulu öndərin 1969-cu il 1 noyabr tarixdə universitetin 50 illik yubileyinin keçirilməsinə qərar verməsi və həmin toplantıda Azərbaycan dilində dərin məzmunlu nitq söyləməsi də onun bu elm məbədinə verdiyi yüksək qiymət kimi bu gün də rəğbətlə xatırlanır: "Bu gün Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyi təntənə ilə qeyd edilir. Azərbaycan elminin həyatında, onun mədəniyyətinin tərəqqisində, Azərbaycan elminin inkişafında, iqtisadiyyatının yüksəlişində yubilyarımız böyük və səmərəli rol oynamışdır. Azərbaycan xalqının torpağında birinci ali məktəbin yubileyi elə bir hadisədir ki, onun ictimai əhəmiyyəti Azərbaycanın dövlət hüdudlarından çox-çox kənara çıxır. Bu gün Azərbaycan Dövlət Universitetinin keçdiyi yarıməsrlik yola yekun vurarkən tam əsasla deyə bilərik ki, yubilyar bu yüksək ada layiq olduğunu özünün bütün fəaliyyəti ilə sübuta yetirmişdir. Azərbaycan Universitetinin tarixi xidməti bir də bundadır ki, o, Azərbaycanın xalq təsərrüfatı, elm və mədəniyyəti üçün yüksək ixtisaslı mütəxəssislərin böyük bir dəstəsini hazırlamışdır".

Ulu öndər Azərbaycanın inkişafını və intibahını məhz bu ali təhsil ocağında axtarmış, Bakı Dövlət Universitetində layiqli kadrların yetişdirilməsi üçün əlindən gələni əsirgəməmişdir. Məhz Heydər Əliyev dühasının qətiyyətli addımları hesabına universitetdə bilik yeganə meyar kimi qorunmuş, bir sıra nüfuzlu ixtisaslara qəbul zamanı yol verilən nöqsanların qarşısı alınmış, sıravi vətəndaşların övladlarının nüfuzlu ixtisaslara doğru yolunu bağlayan sədlər aradan qaldırılmışdır.

Ulu öndər BDU-nun 60 illik yubileyinin də keçirilməsinin əsas təşəbbüskarı olmuşdur. Sovetlər birliyi dövründə təhsil ocağının beynəlxalq əlaqələrinin genişlənməsi məhz Heydər Əliyevin respublikaya rəhbərliyə gəlişindən sonra mümkün olmuşdur. Universitet bir sıra dövlətlərin analoji ali təhsil müəssisələri ilə əməkdaşlığa başlamış, beynəlxalq əlaqələri keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Bu ali təhsil ocağının 40-dan çox müəllimi məhz Heydər Əliyevin himayəsi və qayğısı sayəsində müxtəlif xarici ölkələrə pedaqoji işə göndərilmişdir. Ümumilikdə universitetin 300-dən artıq müəllimi və tələbəsi Asiya və Afrika ölkələrində tərcüməçi işləmiş, 30 müəllim və elmi işçi Avropa, ABŞ və Yaponiyada uzunmüddətli elmi ezamiyyətdə olmuşdur.

Həmin dövrdə ulu öndərin diqqət və qayğısı ilə universitetin maddi-texniki bazası, iş şəraiti əsaslı şəkildə yaxşılaşdırılmış, kabinet və laboratoriyaların sayı 115-i keçmiş, 15 ixtisaslaşmış laboratoriya yaradılmış, təhsil ocağının ikinci korpusu tikilərək istifadəyə verilmişdir. Eyni zamanda professor-müəllim heyətinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmış, onların yeni mənzillərlə təminatına xüsusi diqqət yetirilmişdir.

Ötən əsrin 70-ci illərində məhkəmə, prokurorluq, daxili işlər orqanlarında həyata keçirilən köklü kadr dəyişiklikləri, təsərrüfat-iqtisadi xarakterli cinayətkarlığa qarşı mübarizənin sərtləşdirilməsi məqsədilə atılan addımlar, hüquq-mühafizə orqanları əməkdaşlarının mənəvi cəhətdən sağlamlaşdırılması, qanun keşikçisi adını daşımağa layiq olmayanların orqanlardan uzaqlaşdırılması da ulu öndərin cəmiyyətdə hüquq normalarının möhkəmlənməsində, milli ruhlu hüquqşünas kadrların yetişməsində maraqlı olduğunu bir daha təsdiqləyir. Nüfuzu daim yüksək olmuş Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinin ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə özünə daha uca zirvələrdə yer alması, hüquq elminin daha da populyarlaşması bir sıra obyektiv reallıqlarla şərtlənirdi. Məsələ bundadır ki, o zamanlarda bəzi neqativ hallar üzündən sıravi vətəndaşların hüquq fakültəsinə daxil olması əlçatmaz məsələyə çevrilmişdi. Hüquq fakültəsi o illərdə "imtiyazlı" bir təbəqənin - "sovet-partiya elitası"nın inhisarında olduğundan, qəbul prosesində adamsız, sadə gənclərə müxtəlif problemlər yaradılırdı. Burada əsasən yüksək vəzifəli partiya və sovet məmurlarının, hüquq-mühafizə və dövlət orqanları əməkdaşlarının övladları təhsil alırdı. Fəhlə-kəndli ailəsindən, orta ziyalı

təbəqəsindən çıxan gənclərin bu fakültəyə qəbul olunmaq imkanları çox məhdudlaşdırılmışdı. Həmin illərdə Tibb İnstitutunda və Xalq Təsərrüfatı İnstitutunda da təxminən eyni vəziyyət hökm sürürdü.

Ümummilli lider Heydər Əliyev respublika rəhbərliyinə gəldiyi ilk gündən belə neqativ hallara qarşı mübarizəni gücləndirərək ali təhsil ocaqlarına qəbul prosesinin şəffaf, obyektiv və azad şəraitdə keçməsi üçün bütün zəruri tədbirləri həyata keçirmiş, bu sahədə ciddi dönüşün yaranmasına nail olmuşdur. Ali məktəblərə qəbulun şəffaflığını təmin edən, bu sahədəki əyintilərin kökünü kəsmək niyyətini cəsarətlə, qətiyyətlə, addım-addım gerçəkləşdirən Heydər Əliyevin səyləri ilə universitetin hüquq fakültəsi yenidən istedadlı gənclərin üzünə açılmış, burada təhsilin səviyyəsi və nizam-intizamla yanaşı, hüquqşünas kadr hazırlığı işi də keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Eyni zamanda həmin illərdə hüquq fakültəsinə qəbul prosesində fəhlə və zəhmətkeş övladlarına üstünlük verilməsi ulu öndərin insanpərvər və ədalət tərəfdarı olduğunu bir daha təsdiqləyir. Məhz bu qətiyyətli tədbirlərin nəticəsi olaraq o zamankı Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsi yüksək səviyyəli hüquqşünas kadrların hazırlığı prosesində aparıcı statusunu qorumuşdur.

Bakı Dövlət Universitetindən pərvazlanan, təhsil sahəsində böyük uğurlar əldə edən tələbələrin keçmiş SSRİ-nin bir sıra qabaqcıl universitetlərinə oxumağa göndərilməsi ənənəsi də ulu öndərin respublikada milli kadr potensialının formalaşdırılması istiqamətində atdığı mühüm addımlardan biri kimi xatırlanır. Heydər Əliyevin Azərbaycanın gələcəyini düşünərək uzaqgörənliklə əsasını qoyduğu bu ənənə milli elmi potensialımızın yüksəlməsinə, ixtisaslı kadrlara olan ehtiyacın ödənilməsinə hesablanmışdır. Ümummilli liderin dövlətçilik fəlsəfəsinə görə, elmə, təhsilə göstərilən qayğı xalqın xoşbəxt gələcəyinə qoyulan təminatlı sərmayədir. Ötən əsrin 60-cı illərində SSRİ-nin müxtəlif yerlərində oxumaq istəyənlər üçün yalnız 50 yer ayrıldığı halda, 80-ci illərin əvvəllərində bu göstərici 1000 nəfəri ötmüşdü. Ümumiyyətlə, o dövrdə Heydər Əliyevin qayğı və diqqəti ilə 10 minədək azərbaycanlı gənc respublikamızdan kənarda təhsil almağa göndərilmişdi. Keçmiş İttifaqın müxtəlif yerlərində, xüsusən Moskva, Sankt-Peterburq şəhərlərində ali təhsil alaraq Bakıya dönmüş mütəxəssislər sonradan cəmiyyətin aparıcı təbəqəsinə çevrilmiş və bugünün özündə də həmin insanlar dövlət idarəçiliyində layiqli yerlərini tuturlar.

1998-ci ilin 31 avqustunda 1970-1987-ci illərdə Azərbaycandan kənarda təhsil almış mütəxəssislərin ümumrespublika toplantısındakı nitqində həmin dövrü xarakterizə edən Heydər Əliyev bir çox məqamlara toxunaraq demişdi: "Mən 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçiləndən sonra dərhal birinci növbədə təhsil məsələləri ilə məşğul olmağa başladım. Araşdırmalar apararkən mənə aydın oldu ki, Azərbaycandan kənarda respublikamızın özündə hazırlana bilməyən ixtisaslar üzrə ali təhsil almaq üçün respublikaya 50 nəfərlik limit verilibdir. Mən dərhal maraqlandım ki, bəs siz kimləri seçmisiniz, kimləri oxumağa göndərirsiniz? Siyahını aldım, çox təəssüfləndim. Onların əksəriyyəti azərbaycanlı deyildi. Sonrakı illərdə də bu məsələ bir az çətin idi. Bilirsiniz ki, Azərbaycanda bir çox millətlərin nümayəndələri vardır. O vaxt mən iki-üç ildən sonra hər il respublikadan kənarda oxumağa göndərilənlərin 97-98 faizinin azərbaycanlılardan ibarət olmasına nail oldum".

Ümummilli lider 1982-ci ildən sonra da milli maraqlarla bağlı məsələlərdə daim əzmkarlıq göstərmiş, yüksək siyasi iradə ortaya qoymuş, mərkəzin yeritdiyi siyasətin ayrı-ayrı çalarları ilə bağlı tənqidi fikirlərini, mülahizələrini söyləmişdir. Heydər Əliyev SSRİ rəhbərliyində yüksək vəzifə tutan zamanlar da doğma vətənini, xalqını unutmamış, hər zaman Azərbaycanın mənafeyini müdafiə etmişdir. Ulu öndərin parlaq şəxsiyyəti, tükənməz yaradıcılıq qabiliyyəti, müxtəlif səmərəli ideyaları həyata keçirmək cəhdi dağılmaqda olan imperiya çərçivəsinə sığmırdı. Buna görə də böyük öndərin fəaliyyəti siyasi və mənəvi tənəzzülə uğrayan imperiya rəhbərlərinin qısqanclığı ilə qarşılanırdı. Ulu öndər ötən əsrin 80-ci illərinin sonlarına doğru ermənilərin Azərbaycana qarşı yeni ərazi iddiasını reallaşdırmaq yolunda böyük maneə idi.

Bütün bunlar göstərir ki, hələ ötən əsrin 70-ci illərindən Azərbaycan xalqı və dövləti üçün qurub-yaratmaq, onun gələcək müstəqilliyi naminə etibarlı zəmin formalaşdırmaq ulu öndərin başlıca amalı olmuşdur. Bu siyasəti 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra da inamla davam etdirən Heydər Əliyev ilk növbədə, Azərbaycanın intellektual sabahını düşünmüş, sovetlər dövründə respublikada formalaşdırdığı zəngin elmi potensiala istinad edərək özünün mükəmməl elm və təhsil konsepsiyasını irəli sürmüş, milli tərəqqi baxımından strateji əhəmiyyət daşıyan bu sahənin problemlərini xüsusilə diqqət mərkəzində saxlamışdır. Ümummilli liderin elm və təhsil konsepsiyasının əsas qayəsini müstəqilliyin daha da möhkəmləndirilməsi, demokratik və hüquqi cəmiyyət quruculuğu prosesinin yüksək dinamizmlə həyata keçirilməsi, dövlətin iqtisadi potensialının gücləndirilməsi kimi ümdə prinsiplər təşkil etmişdir.

Böyük strateq müstəqil Azərbaycana rəhbərliyi dövründə məzunu olduğu Bakı Dövlət Universitetinin üzləşdiyi problemlərin həllini diqqətdə saxlamışdır. Ulu öndərin BDU-ya hər gəlişi bu böyük təhsil müəssisəsinə sanki yeni həyat vermiş, çətinliklərə rəğmən, onu yeni dövrün tələbləri səviyyəsində kadr hazırlığına sövq etmişdir. Böyük rəhbərin dəfələrlə qeyd etdiyi kimi, universitetin başlıca məqsədi gələcəyin

vətəndaşını, yüksək səviyyəli mütəxəssini yetişdirməkdən ibarətdir. BDU daim dünya şöhrətli məzununun xüsusi qayğısını hiss etmiş, onun qarşıya qoyduğu ali ideyalar universitetin tələbə və professor-müəllim heyətinin əsas fəaliyyət stimulvericisinə çevrilmişdir.

Ümummilli lider Heydər Əliyevin Bakı Dövlət Universiteti ilə bağlı ən mühüm addımlarından biri də 13 iyun 2000-ci ildə bu ali təhsil ocağına özünüidarəetmə - muxtariyyət statusunun verilməsidir. Müəyyən prinsiplər əsasında universitetə belə bir statusun verilməsi onun inkişafında yeni bir mərhələnin əsasını qoymuş, təhsilin məzmun və formaca təkmilləşdirilməsini, dünya təhsil sisteminə sürətli inteqrasiyasını, eyni zamanda beynəlxalq əlaqələrinin genişlənməsini təmin etmişdir. Xarici ölkələrin mütərəqqi təcrübəsinin universitetdə tətbiqi, tədris-tərbiyə prosesinin müasir standartlara uyğun qurulması üçün məqsədyönlü addımlar atılmışdır.

Heydər Əliyevin Bakı Dövlət Universitetinin inkişafına göstərdiyi yüksək diqqət və qayğı ilk növbədə bu ali təhsil ocağının çağdaş dövlətçilik tariximizdəki əlahiddə yeri ilə şərtlənir. 90 ilə yaxın müddətdə Bakı Dövlət Universiteti Azərbaycanda yüksək ixtisaslı milli kadrların hazırlanmasında əvəzsiz xidmətlər göstərmiş, bir çox ali təhsil ocaqlarının, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyasının yaranmasında böyük rol oynamışdır. Xalqın ziyalı təbəqəsinin və elmi-intellektual potensialının formalaşmasında, dövlətçiliyin inkişafında müstəsna əhəmiyyət kəsb etmiş, elmin, mədəniyyətin və ictimai-siyasi fikrin inkişafında sözünü demiş ziyalıların və dövlət xadimlərinin bütöv bir nəsli məhz Bakı Dövlət Universitetinin auditoriyalarından çıxmış və burada yetişmişlər. Bütün bunları nəzərə alan ulu öndər BDU-nu Azərbaycan xalqının milli sərvəti kimi dəyərləndirmişdir.

Ümummilli lider Azərbaycan elminə, təhsilə davamlı qayğı siyasətinin əsasını qoymaqla yanaşı, bu kursu özündən sonra layiqincə davam etdirəcək varis də yetişdirmişdir. Prezident İlham Əliyev praqmatik və rasional düşüncəli siyasətçi kimi xalqın gələcəyinin məhz elm və təhsillə bağlı olduğunu çıxışlarında dəfələrlə vurğulamış, fəal milli maarifçilik xətti yeridərək dünya təhsil sisteminə inteqrasiyanı vacib saymışdır. Dövlət başçısı ötən 8 ildə respublikada elmi intibahın təmin edilməsini, bu sahədə problemlərin həllini mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir.

Azərbaycanın hərtərəfli inkişafını elm və təhsildə, güclü insan kapitalının formalaşdırılmasında görən dövlət başçısı İlham Əliyev BDU-nun cəmiyyətdəki yerini və rolunu, ictimai əhəmiyyətini daim yüksək dəyərləndirmiş, onun davamlı yüksəlişi, tərəqqisi naminə bütün zəruri tədbirləri həyata keçirmişdir. Cənab İlham Əliyevin xüsusi qayğısı ilə universitet son illərdə inkişafının daha dinamik mərhələsinə qədəm qoymuş, görkəmini, maddi-texniki bazasını inanılmaz dərəcədə müasirləşdirmiş, Avropa təhsil məkanına inteqrasiya prosesində böyük nailiyyətlərə imza atmışdır. Universitetin tikintisi uzun illər yarımçıq qalmış III korpusunun ən müasir tələblərə cavab verən səviyyədə inşa edilərək 2008-2009-cu dərs ili qarşısında istifadəyə verilməsi də dövlət başçısının elmə, təhsilə qayğı siyasətinin bariz təcəssümü olmuşdur.

Azərbaycan Prezidentinin 24 aprel 2009-cu il tarixli "Bakı Dövlət Universitetinin 90 illik yubileyinin keçirilməsi haqqında" sərəncamı ilə noyabrın 2-də universitetin təntənəli yubileyi keçirilmiş, müxtəlif səviyyələrdə təhsil ocağının keçdiyi tarixi yola bir daha nəzər salınmış, onun dövlət və xalq qarşısındakı xidmətləri yüksək dəyərləndirilmişdir.

Hamıya məlumdur ki, siyasi sistem o halda uğurlu fəaliyyət göstərir ki, yetişməkdə olan gənc nəslin cəmiyyətin həyatında qurucu rolu tam şəkildə nəzərə alınır. Bu baxımdan Azərbaycanda modernləşmə prosesinin sürətlə aparılması üçün yeni düşüncəli, intellektual səviyyəli, kreativ baxışlı gəncliyin yetişdirilməsi, maddi resursların insan kapitalına çevrilməsi istiqamətində də kompleks tədbirlər həyata keçirilir. Ulu öndərin bu sahədə müəyyənləşdirdiyi siyasəti keyfiyyətcə yeni mərhələdə inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev elmin, təhsilin problemlərinin həlli istiqamətində inamlı addımlar atır. Dövlət başçısının bir müddət əvvəl imzaladığı sərəncamlarla akademik və müxbir üzvlərin, elmi işçilərin əməkhaqları artırılmışdır. Ölkə rəhbərinin 29 aprel 2011-ci il tarixli "Azərbaycan Milli Elmlər Akademiyasının maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı akademiyanın maddi-texniki bazasının möhkəmləndirilməsinə və mövcud bir sıra problemlərinin həlli məqsədinə xidmət edir.

Bu günlərdə Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının illik ümumi yığıncağında iştirak etmiş və toplantıdakı dərin məzmunlu nitqində bir daha xüsusi vurğulamışdır ki, Azərbaycan dövləti iqtisadi inkişaf prosesində ilk növbədə cəmiyyətin intellektual potensialına istinad edir. Respublikada təbii sərvətlərin hasilatından əldə olunan vəsaitlərin böyük qisminin məhz elm və təhsilə, informasiya texnologiyalarının inkişafına, insan kapitalının formalaşdırılması məqsədinə yönəldilməsi inkişaf etmiş bir sıra dövlətlərin təcrübəsində özünü doğrultmuşdur. Bütün bunlarla yanaşı, cənab İlham Əliyev hazırkı mərhələdə elmi proqnozlardan iqtisadi inkişaf prosesində səmərəli istifadə olunması, daha dəqiqi, elmlə iqtisadiyyatın uğurlu vəhdətinin təmin edilməsi vacibliyini diqqətə çatdırmışdır: "Bütövlükdə Azərbaycan iqtisadiyyatının uğurlu inkişafı dünya miqyasında bir fenomendir. Son bir neçə il ərzində ölkəmizdə iqtisadi artım ən yüksək

səviyyədədir və biz bu göstəriciyə görə dünya miqyasında birinci yerdəyik. Bununla bərabər, iqtisadiyyatın hərtərəfli inkişafı da beynəlxalq maliyyə qurumları tərəfindən qiymətləndirilir. Azərbaycanın bütün beynəlxalq reytinqləri artır. Hətta 2009-2010-cu illərdə bu göstəricilər ən yüksək səviyyədədir. Bununla bərabər, biz uzunmüddətli inkişaf strategiyamızı müəyyən edərkən mütləq güclü elmi bazaya arxalanmalıyıq. Biz iqtisadi inkişafımızın gələcək istiqamətlərini müəyyən edərkən güclü elmi əsaslara söykənməliyik. Burada düzgün proqnozlar verilməlidir".

Dövlət başçısının AMEA-nın illik ümumi yığıncağındakı nitqində ərzaq təhlükəsizliyi məsələsinə xüsusi diqqət ayırması, akademiyada aqrar sahə ilə bağlı elmi tədqiqatların genişləndirilməsi vacibliyini vurğulaması da müəyyən reallıqlarla şərtlənir. Məsələ burasındadır ki, Azərbaycanın zəngin və əlverişli torpaq-iqlim şəraiti, nisbətən ucuz işçi qüvvəsi və ekoloji cəhətdən təmiz məhsul istehsal etmək imkanları dünya bazarında yüksək rəqabət qabiliyyətinə malik olub keyfiyyətli ərzaq məhsulları istehsalı üçün əlverişli şərait yaradır. Kənd təsərrüfatının dinamik inkişaf etdirilməsi yolu ilə əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatının gerçəkləşdirilməsi təkcə iqtisadi deyil, həm də milli təhlükəsizliklə bağlı strateji məsələdir. Bütün bunlar aqrar elmin müasir dövrün tələblərinə uyğun müasirləşdirilməsini, aqrar-sənaye sahəsində elmi-tədqiqat işlərinin keyfiyyətinin yüksəldilməsini, elmi-təcrübi yeniliklərin istehsalata tətbiqini, bir sözlə, innovasion inkişafın təmin edilməsi vacibliyini ön plana çıxarır. Məhz bu reallıqdan çıxış edən cənab İlham Əliyev AMEA-nın illik ümumi yığıncağında akademiyanın aqrar bölməsinin yaradılması vacibliyini diqqətə çəkmişdir: "Azərbaycanda sahibkarlığın inkişafının dəstəklənməsi, kreditlərin verilməsi, özəl sektorun inkişafı - bütün bu məsələlər bir məqsəd güdür: ərzaq təhlükəsizliyimizi tam şəkildə təmin edək. Hesab edirəm ki, növbəti 2-3 il ərzində biz özümüzü əsas ərzaq məhsulları ilə təmin etməliyik və bununla bərabər, çox güclü ixrac potensialımızı da yaratmalıyıq. Ona görə aqrar elmlərin inkişafı və iqtisadı inkişafla uzlaşması xüsusi məna daşıyıb. Hesab edirəm ki, Milli Elmlər Akademiyasının aqrar bölməsinin yaradılması üçün konkret addımlar atılmalıdır. Vaxt itirmədən bu bölmə yaradılmalıdır və fəal işə başlamalıdır".

Dövlət başçısı möhtərəm İlham Əliyevin imzaladığı fərman və sərəncamlardan, dövlət proqramlarından, habelə dəyərli tövsiyə və tapşırıqlarından irəli gələn vəzifələr Bakı Dövlət Universitetində ciddiliklə nəzərə alınır. Elm sahəsində aparılan tədqiqatların günümüzün tələblərinə cavab verməsi, elmlə iqtisadiyyatın vəhdətinin təmin olunması, əldə olunan yeniliklərin praktikada tətbiqi üçün universitetdə mühüm işlər həyata keçirilir. Eyni zamanda elmlə ali təhsilin qarşılıqlı əlaqəsinin gücləndirilməsi istiqamətində davamlı olaraq tədbirlər görülür.

İqtisadi cəhətdən ildən-ilə möhkəmlənən Azərbaycanda elmin və təhsilin üzləşdiyi problemlərin həlli istiqamətində son illər qətiyyətli addımlar atılır. Mütərəqqi ruhlu bu islahatları Bakı Dövlət Universitetinin çoxsaylı professor-müəllim heyəti də yaxından hiss edir, ölkəmizi firavanlığa, xoş gələcəyə, daha da güclənən hüquqi dövlətə və vətəndaş cəmiyyətinə aparan elmi inkişaf strategiyasını birmənalı dəstəkləyir. İnanırıq ki, əsası Heydər Əliyev tərəfindən qoyulan və möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan islahatlar nəticəsində elm və təhsilin bütün mövcud problemləri öz uğurlu həllini tapacaqdır. Bu gün hamıya məlumdur ki, Heydər Əliyev siyasi kursunun davam etdirilməsi ictimai zərurət olmaqla, respublikanın müstəqilliyinə əbədi təminatdır.

“**Azərbaycan**”.-2011.-11 may.-N 100.-S.6.

# ƏHALİNİN SOSİAL MÜDAFİƏSİNİN MÜKƏMMƏL MODELİNİ YARADAN LİDER

**Fizuli ƏLƏKBƏROV,**
Azərbaycan Respublikasının
əmək və əhalinin sosial müdafiəsi naziri

**Bəşəriyyətin mövcudluq salnaməsi belə bir həqiqəti aydın şəkildə sübuta yetirmişdir ki, hər bir cəmiyyətin, dövlətin tərəqqisini sürətləndirən ən mühüm amillərdən biri yüksək səmərəliliyə malik sosial siyasətin həyata keçirilməsidir. Belə vəziyyətdə həm bütöv halda götürülmüş cəmiyyətin özü, həm də onun tərkibini formalaşdıran müxtəlif təbəqələr, ayrı-ayrı fərdlər inkişaf prosesində maraqlı tərəf kimi çıxış edir, eyni zamanda bu prosesə özünəməxsus töhfələr verməyə çalışaraq onun davamlı xarakter alması istiqamətində fəaliyyətlərini genişləndirirlər. Bununla inkişaf prosesinin daha dinamik xarakter alması, onun əsas məqsədlərindən biri olan maddi rifah halının cəmiyyətin hər bir fərdinin həyatında əks olunması, vətəndaşın həyat səviyyəsinin müsbət istiqamətdə sürətlə dəyişməsi, gəlirlərinin ədalətlilik prinsipi əsasında bölünməsi təmin edilir.**

Bazar iqtisadiyyatı şəraitində effektiv sosial siyasətin, o cümlədən sosial ədalət prinsipinin həyata keçirilməsi, əmək qabiliyyətli hər bir insana layiqli iş şəraitinin yaradılması, əhalinin yüksək sosial müdafiəsi, məşğulluq probleminin uğurlu həlli, optimal xarakterli müvafiq infrastrukturun formalaşdırılması kimi məsələlər işə dəqiq elmi yanaşmalar və qabaqcıl dünya təcrübəsinin tətbiqini tələb edir. Bütün bunlar həm də həyata keçiriləcək sosial siyasətin əvvəlcədən ən xırda detallarına qədər dəqiq və uzaqgörənliklə düşünülmüş elmi konsepsiyasının hazırlanmasının vacibliyini, onun uğurlu icrasının kifayət qədər mürəkkəb bir mexanizm əsasında baş verdiyini aydın surətdə meydana qoyur.

Sosial-iqtisadi sahədə inkişafın özünəməxsus modelini yaradan və böyük nailiyyətlərlə müşayiət olunan tərəqqi göstəricilərini nümayiş etdirən, son 7 il ərzində iqtisadiyyatının artım tempinə görə dünya dövlətlərinin reytinq cədvəlinə liderlik edən Azərbaycan bu gün həyata keçirdiyi sosialyönümlü siyasət strategiyası, eləcə də onun səmərəlilik əmsalının yüksək olması baxımından nümunəvi bir mövqeyin sahibi kimi çıxış edir. Qazanılan möhtəşəm müvəffəqiyyətləri şərtləndirən əsas amillər sırasında iqtisadi zəmində sosial ziddiyyətlərin uğurla aradan qaldırılması, ədalətlilik prinsipinin hər zaman gözlənilməsi, əhalinin bütün təbəqələri üçün bərabər sosial təminat sisteminin yaradılması kimi mühüm məqamlar ehtiva olunur. Makroiqtisadi sabitliyin qorunub saxlanması şəraitində ölkədə yoxsulluğun azaldılması, işsizliyin minimuma endirilməsi, dövlət büdcəsindən sosial sahələrə ayrılan maliyyə vəsaitlərinin davamlı şəkildə artırılması, insan kapitalının, sosial infrastrukturun inkişafı və nəticə etibarilə əhalinin həyat səviyyəsinin ötən illərlə müqayisədə daha da yüksəlməsi müasir Azərbaycanı xarakterizə edən əsas reallıqlardandır. Bu, həm də ölkənin inkişafının kifayət qədər mükəmməl bazis üzərində qurulduğunu, onun zamanın çağırışlarına adekvat cavab vermək qabiliyyətində olduğunu, əldə edilən nailiyyətlərin miqyasının mütəmadi genişlənməsinə imkan verdiyini real nəticələr əsasında nümayiş etdirir. Sözügedən inkişaf strategiyasının müəllifi qismində isə həyatını təmənnasız olaraq xalqına xidmətə həsr edən, müasir Azərbaycanın memarı olan ümummilli lider Heydər Əliyev çıxış edir.

Ulu öndər özünün dövlət quruculuğu fəlsəfəsində əhalinin sosial təminatının daim güclənməsini çoxşaxəli fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edərək bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirməklə yeni ictimai-iqtisadi formasiyada insanların yüksək həyat səviyyəsinin etibarlı təmininə nail olmuşdur. Halbuki ötən əsrin son onilliyində tarixi zərurətdən və yaşanan mürəkkəb ictimai-siyasi hadisələrdən, müstəqillik uğrunda aparılan mübarizədən irəli gələrək SSRİ adlanan nəhəng imperiyanın çöküşü ilə yenidən suveren dövlət olmaq hüququnu reallaşdırmaq imkanı qazanan Azərbaycanda ilk illərdə hakimiyyətdə olan müxtəlif qüvvələrin səriştəsiz siyasəti ölkədə olduqca ağır bir vəziyyətin formalaşması ilə nəticələnmişdi. Digər tərəfdən, Sovetlər İttifaqına daxil olan ölkələr arasında 70 il ərzində formalaşmış iqtisadi əlaqələrin bir anda pozulması, istehsalın iflic vəziyyətinə düşməsi, intensiv şəkildə dəyişən qiymət indeksi nəticəsində inflyasiya prosesinin dərinləşməsi sosial-iqtisadi böhranı daha da ağırlaşdırdı. Buna paralel şəkildə ayrı-ayrı silahlı qruplaşmaların hakimiyyət uğrunda mübarizəsi, ölkənin siyasi və coğrafi cəhətdən parçalanmaq təhlükəsi ilə üzləşməsi, vətəndaş müharibəsi astanasına gəlməsi, Ermənistanın təcavüzünə məruz qalması, 1 milyondan artıq qaçqın və məcburi köçkün ordusunun yaranması kimi amillər vəziyyəti xeyli ağırlaşdırırdı. İşsizliyin, yoxsulluğun tüğyan etdiyi bu şəraitdə özünü göstərən sosial gərginliyi azaltmaq üçün ölkə iqtisadiyyatının real imkanları nəzərə alınmadan əməkhaqqının və sosial ödənişlərin yüksəldilməsi cəhdləri və çoxsaylı güzəştlərin tətbiqi heç bir nəticə verməyərək inflyasiya prosesinin genişlənərək hiperinflyasiyaya çevrilməsinə gətirib çıxarmışdı.

O dövrdə hakimiyyətdə yer alan qüvvələrin səriştəsizliyi və idarəçilikdə təcrübəsizliyi, şəxsi mənafelərini ümumi maraqlardan üstün tutmaları, sistemsiz, epizodik xarakterli tədbirləri nəinki yaşanan problemlərin həllinə yol açır, əksinə, Azərbaycanın bir dövlət olaraq məhvini yaxınlaşdırırdı. Belə şəraitdə müdrik qərar verərək ölkənin və özünün taleyini alternativsiz lider olan dahi oğlu Heydər Əliyevə həvalə etmək üçün xalq təkidli tələblə ümummilli liderin yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıdışına nail oldu. Azərbaycanı suveren ölkə olaraq yaşatmağı qarşıya əsas məqsəd kimi qoyan, onun həqiqi dövlət müstəqilliyinin banisinə çevrilən ulu öndər bir iqtisadi formasiyadan digərinə transformasiya prosesinin uğurlu əsaslarını və hüquqi bazasını yaratdı. Bu zaman sosialyönümlü bazar iqtisadiyyatının formalaşması ilə bağlı əhalinin bütün təbəqələrinin həyat səviyyəsinin yaxşılaşdırılması məqsədilə müvafiq və mümkün zəruri tədbirlər gerçəkləşdirilmiş, xüsusilə aztəminatlı təbəqənin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Ulu öndərin həyata keçirdiyi məqsədyönlü, ardıcıl siyasət yaşanan iqtisadi tənəzzülün qarşısını almaqla bərabər, ölkənin maliyyə durumunun, xalqın həyat səviyyəsinin yaxşılaşması, eyni zamanda daxili sabitliyin möhkəm özüllər üzərində qurulması, vətəndaşların təhlükəsizliyinin təmin edilməsi ilə nəticələndi. Aparılan sosial siyasətin real əsaslara söykənməsi, iqtisadiyyatın inkişafının əsaslı şəkildə bazar tənzimləyicilərinin təsiri altına keçirilməsi, qiymətlərin, xarici iqtisadi fəaliyyətin, valyuta bazarının liberallaşdırılması, manatın məzənnəsinin sabitləşdirilməsi, sahibkarlığın inkişafı, əlverişli investisiya mühitinin formalaşdırılması, xüsusən də çoxmilyardlı xarici sərmayənin ölkə iqtisadiyyatının müxtəlfi sahələrinə, o cümlədən neft-qaz sektoruna gəlişinin təmini və bu qəbildən olan digər tədbirlər sosial-iqtisadi yüksəliş mərhələsinin yaşanmasına rəvac verdi.

Sürətli tərəqqiyə xidmət edən islahatlar, dövlətçiliyin əsaslarının tam şəkildə qurulması, buna paralel olaraq iqtisadiyyatın gücləndirilməsi xalqın sosial rifahının daha dinamik tərzdə yaxşılaşması ilə müşayiət olunurdu. Bazar münasibətləri əsasında formalaşan sosialyönümlü milli iqtisadiyyatın yaradılması, dövlət mülkiyyətinin özəlləşdirilməsi və bununla bağlı müvafiq qanunvericilik bazasının formalaşdırılması, şəxsiyyətin azad inkişafı üçün bərabər imkanların təmini, sosial təminatların gücləndirilməsi, sığorta və sosial xidmətlər, hamı üçün mümkün ola bilən təhsil, səhiyyə, mədəniyyət sistemlərinin inkişaf etdirilməsi ölkədə uğurlu sosial müdafiə modelinin ərsəyə gəlməsinin vacib göstəriciləri kimi çıxış edirdi. Bu kontekstdə sosial bərabərliyə nail olunması, əməyin və insanların sağlamlığının qorunması, vətəndaşlara göstərilən dövlət yardımlarının artırılması, orta aylıq əməkhaqlarının davamlı şəkildə çoxaldılması diqqət mərkəzində xüsusi yer alırdı.

İqtisadi tənəzzülə son qoyulması fonunda ümummilli liderin diqqət yetirdiyi mühüm məqamlardan biri sosial müdafiə sahəsində ünvanlılıq prinsipinin gözlənilməsi ilə əlaqədar olmuşdur. Bunun nəticəsi olaraq ayrı-ayrı kateqoriyalı şəxslərin sosial müdafiəsi üzrə müxtəlif qanunlar qəbul olunaraq icraya yönləndirilmiş, sosial müdafiəyə daha çox ehtiyacı olanlara dövlət tərəfindən yardımların göstərilməsi əsas məqsədlərdən birini təşkil etmişdir. Bu xüsusda "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında" və digər qəbul edilmiş qanunların adını çəkmək olar. Ulu öndərin "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" 1994-cü il 15 iyun tarixli fərmanı əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində çıxış edən növbəti mühüm sənəd olmuşdur. Fərmandan irəli gələn vəzifələrin daha effektiv yerinə yetirilməsinin təmininə nail olmaq və yol verilən bəzi qüsurların aradan qaldırılması üçün Heydər Əliyev "Əhalinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" növbəti sənəd imzalamışdır ki, bu, bilavasitə əhalinin sosial müdafiəsinin daha etibarlı şəkildə qorunmasında vacib əhəmiyyət kəsb etmişdir. Bununla yanaşı, əhalinin müxtəlif təbəqələrinin, məsələn, şəhid ailələrinin, qaçqınların, məcburi köçkünlərin, müharibə və 20 Yanvar əlillərinin, veteranların sosial təminatının yaxşılaşdırılması istiqamətində çoxsaylı fərman və sərəncamların imzalanması ümummilli liderin rəhbərliyi altında həyata keçirilən sosial siyasətin effektivliyini və sosial qayğıya ehtiyac duyan daha çox insanı əhatə etməsi ilə yekunlaşırdı.

Əhalinin sosial müdafiəsi ilə bağlı qanunvericilik bazasının güclənməsi istiqamətində atılan növbəti mühüm addımlardan biri ulu öndərin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə hazırlanan müstəqil Azərbaycanın ilk Konstitusiyası olmuşdur və burada dövlətin məqsədi kimi iqtisadiyyatın inkişafının müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın sosial rifahının yaxşılaşdırılması təsbit edilir. 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilən, yeni ictimai sistemin hüquqi tanınmasını təsdiq edən, Avropa dəyərlərinə, demokratiya və insan azadlığına söykənən ölkənin Əsas qanununun müvafiq müddəalarına əsasən, dövlət sosial-iqtisadi hüquqlar sahəsində həyata keçirilən siyasətlə vətəndaş cəmiyyətinin yaradılmasını, bazar iqtisadiyyatında insanın dövlət tərəfindən sosial müdafiə olunmasını və sosial ədalət prinsipinə xidmət etməyi öz üzərinə götürmüşdür. Konstitusiyanın 16-cı maddəsində deyilir ki, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsinin, onun sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qalır.

Bununla faktiki olaraq müəyyən edilir ki, bütün inkişaf etmiş sivil dövlətlərdə olduğu kimi, iqtisadiyyat fərdin maddi, sosial, mənəvi tələbatlarının ödənilməsinə istiqamətləndirilməlidir. Beləliklə, ulu öndərin həyata keçirdiyi sosial siyasətin məzmunu onun ölkənin iqtisadi bazisinə əsaslandığını, dayanıqlı olduğunu, eyni zamanda mükəmməl normativ-hüquqi bazaya söykəndiyini göstərir.

Sosial müdafiənin və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə dair atılan növbəti addımlar, bu istiqamətdə həyata keçirilən siyasətin elmi-nəzəri dəyərlərə və dünyanın ən mütərəqqi təcrübəsinə əsaslanması vətəndaşların həyat səviyyəsinin daha da yaxşılaşdırılması ilə müşayiət olunmuşdur. Əməkhaqlarının, pensiya və digər sosial müavinətlərin vaxtaşırı artırılması, yoxsulluq probleminin həlli ilə bağlı görülən tədbirlər ölkənin sosial müdafiə modelinin daha güclü bir hala gəlməsinə yol açmışdır. Bu zaman ulu öndər müvafiq islahatların həyata keçirilməsini də xüsusi diqqət mərkəzində saxlayır, sözügedən kontekstdə əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə zəruri tədbirlər görürdü. 2002-ci il yanvarın 1-dən ölkəmizin sosial siyasətində yeni bir mərhələnin başlanğıcı qoyuldu. "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" 15 noyabr 2001-ci il tarxli qanunla güzəşt və imtiyazlardan istifadə edən əhali kateqoriyasının dairəsinə yenidən baxıldı, həmçinin kommunal və nəqliyyatdan istifadəyə görə güzəştlər müavinətlərlə əvəz olundu. Bütün bunlar bazar iqtisadiyyatı şəraitində dövlət vəsaitlərinin xərclənməsinin səmərəliliyinin yüksəldilməsinə, enerjidaşıyıcılarından səmərəli və qənaətlə istifadənin təmin olunmasına, sosial müdafiənin ünvanlılığının artırılmasına xidmət edən vacib məqamlara çevrildi və zaman bu islahatların nə dərəcədə doğru olduğunu sübuta yetirdi. Görülən digər tədbirlər, o cümlədən yoxsulluğun səviyyəsinin azaldılması üçün müvafiq proqramın təsdiqi ulu öndərin rəhbərliyi altında həyata keçirilən sosial siyasətin yüksək səmərəliliyi ilə yanaşı, xalqın rifah halının yüksəldilməsi istiqamətində real nəticələr əldə olunması ilə yekunlaşırdı.

Ulu öndərin layiqli varisi Prezident İlham Əliyevin rəhbərliyi altında ümummilli liderin inkişaf strategiyasının uğurlu davamı məşğulluq və sosial sferada da özünü qabarıq büruzə verərək bu sahənin tərəqqisini daha dinamik hala gətirmişdir. Ölkəmizin malik olduğu iqtisadi potensialın daha da gücləndirilərək onun kompleks şəkildə səmərəli reallaşdırılması nəticəsində əməkhaqları və pensiyaların, digər sosial müavinətlərin mütəmadi artırılması, yeni iş yerlərinin açılması və bunun daha çox qeyri-neft sektorunu əhatə etməsi vətəndaşların sosial müdafiəsini davamlı olaraq yaxşılaşdırmışdır. Cəmiyyətin sosiomədəni bazisinin postindustrial dəyərlər və demokratik ənənələr məcrasına uğurlu transformasiyası istiqamətində möhtəşəm nailiyyətlərə imza atan Azərbaycanın dövlət başçısının iqtisadi sferada həyata keçirdiyi siyasətin daim özünü qabarıq verən ən önəmli cəhətlərindən biri məhz onun sosialyönümlü xarakter daşımasıdır.

Azərbaycanın davamlı şəkildə artan iqtisadi imkanları fonunda cənab İlham Əliyevin imzaladığı sərəncam və fərmanlarda, təsdiq etdiyi dövlət proqramlarında çoxlu sayda yeni iş yerlərinin açılmasına şərait yaradılması, sosial xidmətlərin həcminin, keyfiyyətinin və ünvanlılığının mütəmadi artırılması, yoxsulluğun azaldılması kimi vəzifələr daim əsas planda yer alır. Digər tərəfdən, dövlət başçısının rəhbərliyi altında həyata keçirilən məqsədyönlü siyasətin elmi-nəzəri, iqtisadi əsaslara söykənməsi, bu zaman sosial prioritetlərin düzgün müəyyənləşdirilməsi nəticə etibarilə xalqın maddi rifah halının daha da yaxşılaşdırılmasını, eyni zamanda Azərbaycanın daha qüdrətli bir ölkəyə çevrilməsini təmin etməkdədir və bu, Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin əsas məqsədidir.

Bu gün ölkəmizdə uğurla həyata keçirilən modern sosial siyasətin malik olduğu konrkret parametrlərdən biri yoxsulluğun azaldılmasıdır və qeyd edilən istiqamətdə Prezident İlham Əliyevin 2008-ci il sentyabrın 15-də təsdiq etdiyi "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" uğurla icra edilir. Bunun nəticəsidir ki, 2010-cu ilin yekunlarına əsasən, yoxsulluq səviyyəsi 9 faiz təşkil etmişdir və 2015-ci ilə kimi ölkədə yoxsulluq probleminin tamamilə həlli gözlənilir. 2003-2010-cu illər ərzində ölkəmizə 900 mindən çox iş yerinin açılması isə yoxsulluğun ləğvinə uğurlu töhfə verməklə yanaşı, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsində mühüm rol oynamışdır.

Prezident İlham Əliyevin aztəminatlı vətəndaşların sosial müdafiəsinin daha da gücləndirilməsi məqsədilə 21 oktyabr 2005-ci il tarixdə təsdiqlədiyi "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, artıq 5 ilə yaxındır ki, ölkəmizdə ünvanlı dövlət sosial yardımı sistemi tətbiq olunur. Ötən dövr ərzində ünvanlı dövlət sosial yardımı mexanizminin təkmilləşdirilməsi məqsədi ilə müvafiq qanunvericiliyə bir neçə dəfə əlavə və dəyişikliklər edilmiş, nəticədə ünvanlı yardımın əhatə dairəsi genişləndirilməklə, yoxsul ailələrin bu yardım növündən yararlanmaq imkanları daha da artırılmış, bu sahədə sənədləşdirmə qaydaları sadələşdirilmişdir. Ünvanlı yardımın hesablanması üçün əsas götürülən ehtiyac meyarının yaşayış minimumuna çatdırılması istiqamətində də müvafiq addımlar atılır və ötən müddətdə ehtiyac meyarının həddi 30 manatdan 75 manata qaldırılmışdır ki, bu da 2,5 dəfə artım deməkdir.

Tədqiqatlar onu da göstərmişdir ki, Azərbaycanda sosialyönümlü proqramların icrası üçün ayrılan vəsaitlərin xərclənməsinin effektivlik göstəriciləri digər ölkələrlə müqayisədə daha yüksəkdir. Belə ki, ünvanlılığın səmərəliliyi sahəsində Azərbaycan MDB ölkələri arasında Ukrayna ilə 1-ci və 2-ci yerləri bölüşdürür. Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planına əsasən, nazirlik tərəfindən "Azərbaycan Respublikasında aztəminatlı ailələrin sosial reabilitasiyası üzrə Dövlət Proqramı" layihəsinin hazırlanması işləri davam etdirilir. Eyni zamanda, aztəminatlı ailələrin yoxsulluq vəziyyətindən çıxarılmasına aktiv tədbirlər vasitəsilə və onların mövcud daxili resurslarından istifadə olunmaqla kömək göstərilməsi məqsədilə hazırlanan "Özünədəstək" ünvanlı sosial yardım layihəsi ilə bağlı sınaq işlərinə start verilmişdir. Bundan başqa, cənab İlham Əliyevin "Aztəminatlı əhalinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" 8 sentyabr 2010-cu il tarixli Fərmanına əsasən, ölkəmizdə aylıq və birdəfəlik sosial müavinətlərin məbləği 1 sentyabr 2010-cu il tarixdən orta hesabla 12 faiz artmışdır.

Ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ailə üzvlərinin və Qarabağ müharibəsi əlillərinin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasına ölkə rəhbəri tərəfindən böyük diqqət və qayğı göstərilir. Möhtərəm Prezident tərəfindən qarşıya qoyulan tapşırığın icrası olaraq mənzillərin inşasında müsbət dinamika saxlanılmaqla, nəzərdə tutulan layihələr yüksək keyfiyyətlə həyata keçirilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əlil və şəhid ailələrinə təqdim olunan mənzillərin sayında son 3 il ərzində ciddi artım yaşanmışdır. Bu vaxtadək dövlət hesabına mənzillə təmin olunmuş əlil və şəhid ailələrinin sayı 3600-dən çoxdur. Əlillərin minik avtomobilləri ilə təminatı işləri də uğurla davam etdirilir. 2010-cu ildə 478 ədəd "Slavuta" markalı minik avtomobili Qarabağ müharibəsi və Böyük Vətən müharibəsi əlillərinə paylanmışdır. Ümumiyyətlə, indiyədək 3000-ə yaxın minik avtomobili müvafiq kateqoriyalardan olan əlillərə təqdim edilmişdir. Bir qədər öncə isə Çernobıl AES-də baş vermiş qəzanın 25 illiyi ilə əlaqədar 14 nəfər Çernobıl əlilinə minik avtomobili verilmişdir. Mənzillərin və avtomobillərin təqdimat mərasimlərinin bir çoxunda Prezident İlham Əliyev iştirak etmiş, həmçinin ötən ilin dekabrında Bakının Sabunçu rayonunun Zabrat qəsəbəsində əlil və şəhid ailələri üçün hər biri 81 mənzilli 3 ədəd binadan ibarət olacaq yaşayış kompleksinin təməlini qoymuşdur ki, bu əlamətdar hadisələr həmin ailələrə yüksək səviyyədə qayğı və diqqətin real nümunəsi kimi dəyərləndirilir.

Əlillərin müxtəlif reabilitasiya avadanlıqları ilə təminatı işləri də ilbəil yüksək səviyyədə davam etdirilir və onların hər hansı reabilitasiya avadanlıqlarına olan ehtiyacı vaxtlı-vaxtında aradan qaldırılır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, hazırda dünya üzrə əlillərin əhali tərkibində faiz göstəricisi 10 faizdir, Azərbaycanda isə bu rəqəm 4,4 faiz təşkil edir ki, bu da MDB məkanında ən aşağı göstəricilərdəndir.

Aktiv məşğulluq tədbirlərinin davam etdirilməsi də diqqət mərkəzindədir. 2010-cu ildə Dövlət Məşğulluq Xidməti tərəfindən 29 399 nəfər, cari ilin birinci rübündə isə 5261 nəfər işsiz və işaxtaran vətəndaş münasib işlə təmin olunmuşdur. Əhali tərəfindən həmişə maraqla qarşılanan tədbirlərdən biri də aktiv məşğulluq tədbiri olan əmək yarmarkalarıdır. Cari ilin birinci rübündə paytaxtımızın 11 rayonu üzrə belə yarmarkalar keçirilib və həmin tədbirlər müsbət nəticələrini verib. İl ərzində paytaxtda mütəmadi olaraq belə tədbirlərin keçirilməsi qərara alınıb. Digər tərəfdən, hər il olduğu kimi, bu il də ölkənin ayrı-ayrı rayon və şəhərlərində növbəti əmək yarmarkaları, həmçinin məzun və tələbələrin əmək bazarına inteqrasiyası məqsədilə "Karyerada ilk addım" devizi altında aktiv tədbirlər keçiriləcək.

Əməyin mühafizəsinin təşkilinə dövlət nəzarətinin gücləndirilməsi nəticəsində iş yerlərində baş verən bədbəxt hadisələrin və bu hadisələr zamanı həlak olanların sayı azalmaqdadır. Dünya Bankı ilə birgə həyata keçirilən Sosial Müdafiənin İnkişafı Layihəsi çərçivəsində isə "İSCO88/08-ə uyğun Təkmilləşdirilmiş Peşə Standartları və Əlaqədar Təlim Standartlarının hazırlanması" layihəsinin icrası işləri davam etdirilir. Layihə çərçivəsində 3 il ərzində 200 peşə və 100 təlim standartı, həmçinin 200 standart üzrə qiymətləndirmə forması, peşə təsnifatının müasir tələblərə uyğunlaşdırılması məqsədilə təkliflər və Peşə Standartları Mərkəzinin yaradılması üçün hüquqi-institusional baza hazırlanacaq.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi, aztəminatlı vətəndaşlara dövlət qayğısının artırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi eyni zamanda Azərbaycan Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2010-cu ilin yekunlarına dair 14 yanvar 2011-ci il tarixdə keçirilmiş iclasında qarşıya qoyduğu vəzifələri rəhbər tutaraq və Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyasının 27 yanvar 2011-ci il tarixli iclasında verilmiş tapşırıqların həyata keçirilməsi ilə bağlı konkret və məqsədyönlü işlər görür. Ünvanlı sosial yardım və tibbi-sosial ekspertiza ilə bağlı əhaliyə göstərilən xidmət səviyyəsinin, tibbi-sosial ekspert komissiyalarında (TSEK) və rayon (şəhər) əhalinin sosial müdafiəsi mərkəzlərində çalışan işçilərin məsuliyyətinin artırılması, "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi

məqsədi ilə bir sıra tədbirlər həyata keçirilmişdir. Vəzifələrinin icrasında, həmçinin vətəndaşlara xidmət sahəsində yol verdikləri ciddi nöqsanlara görə Quba, Yardımlı və Xızı rayonlarının əhalinin sosial müdafiəsi mərkəzlərinin direktorları və 13 nəfər məsul əməkdaşı vəzifələrindən azad edilmiş, 5 rayonun (Kürdəmir, Sabirabad, Zərdab, Biləsuvar, Ağcabədi) mərkəz direktorları müvəqqəti olaraq vəzifələrindən kənarlaşdırılmış, 15 nəfərə isə töhmət verilmişdir. İctimai nəzarətin gücləndirilməsi məqsədilə "Ünvanlı sosial yardım təyin edən komissiya haqqında Əsasnamə"yə əlavə və dəyişikliklər edilərək, həmin komissiyanın üzvləri siyahısına təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların (qeyri-hökumət təşkilatları və həmkarlar ittifaqları daxil olmaqla) nümayəndələri də daxil edilmişdir.

Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə dövlət hesabına mənzillərin və avtomobillərin verilməsi üçün yaradılmış xüsusi komissiyanın işində şəffaflığın daha da artırılması məqsədilə 2011-ci ilin mart ayında komissiyanın tərkibinə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının, Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının nümayəndələri, ayrı-ayrı əlil təşkilatlarının sədrləri də daxil edilmişdir.

Beynəlxalq Əmək Təşkilatının prinsiplərinə uyğun olaraq Dövlət Əmək Müfəttişliyi Xidməti fəaliyyətini sosial tərəfdaşlarla - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ilə sıx əməkdaşlıq şəraitində qurur. Bu istiqamətdə işlərin davamı kimi iş yerlərində əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsində, habelə istehsalatda baş vermiş bədbəxt hadisələrin təhqiqatının aparılmasında sosial tərəfdaşların iştirakının təmin olunması məqsədilə Sosial Şuranın yaradılması qərara alınmışdır.

Digər tərəfdən, 1997-ci ildə qəbul edilmiş "Tibbi-sosial ekspert komissiyaları (TSEK) haqqında Əsasnamə"yə dəyişiklik edilməklə Zona TSEK-lər ləğv edilmiş, əvəzində TSEK-lərin sayı artırılmaqla onların iş yükü azaldılmışdır. Vətəndaşların qəbulunu asanlaşdırmaq və onlara göstərilən xidmətin keyfiyyətini artırmaq məqsədilə zona TSEK-lərin sayı 22-dən 38-ə artırılmışdır. Eyni zamanda, əlilliyin müəyyən edilməsi meyarları barədə 1997-ci ildə qəbul edilmiş 99 nömrəli əsasnaməyə dəyişikliklər barədə təkliflər hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir. Korrupsiyaya qarşı mübarizədə şəffaflığın artırılması, ərizə və şikayətlərin vaxtında və yerində araşdırılması məqsədilə həkim-ekspertlər zonalara ezam edilmişdir. Bununla yanaşı, 7 zona üzrə tibbi-sosial ekspert komissiyalarının sədrləri müvəqqəti olaraq vəzifələrindən kənarlaşdırılmış, 8 nəfər həkim-ekspertə sonuncu xəbərdarlıqla şiddətli töhmət verilmişdir. Vətəndaş müraciətlərinin daha operativ cavablandırılması ilə bağlı nazirlikdə artıq müasir elektron nailiyyətlərdən geniş istifadə olunur. Həyata keçirilən tədbirlərin müsbət nəticəsi kimi vətəndaşlar tərəfindən nazirliyə və ayrı-ayrı instansiyalara ünvanlanan şikayət xarakterli müraciətlərin sayında ciddi azalma müşahidə olunmaqdadır.

Əhaliyə göstərilən xidmət səviyyəsinin yüksəldilməsi, bu sahədə şəffaflığın artırılması, korrupsiya hallarına qarşı mübarizənin gücləndirilməsi istiqamətində işlərin davamı olaraq 22 aprel 2011-ci il tarixdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasının, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Aparatının və Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətində ictimai nəzarətin daha da gücləndirilməsi" mövzusunda birgə müşavirəsi keçirilmişdir. Müşavirənin sonunda nazirliyin fəaliyyətində ictimai nəzarətin gücləndirilməsi, QHT ilə birgə layihələrin təşkili və müvafiq normativ-hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə aidiyyəti dövlət qurumları və vətəndaş cəmiyyəti institutlarının nümayəndələrindən ibarət "İctimai Şura"nın yaradılması barədə qərar qəbul edilmişdir.

2011-ci ilin 5 mayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Böyük Vətən müharibəsi əlilləri və iştirakçıları ilə görüş keçirilmişdir. Tədbirdə qeyd olunub ki, Böyük Vətən müharibəsi əlilləri və iştirakçıları daim dövlət tərəfindən qayğı ilə əhatə olunub, bu sahədə tədbirlərin bundan sonra da davam etdiriləcəyi vurğulanıb. Məlumat üçün bildirim ki, hazırda 31 nəfər Böyük Vətən müharibəsi əlili və iştirakçısı mənzil növbəsindədir.

**Bütün bunlar ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən sosial siyasətin böyük uğurlarla müşayiət olunmasının və onun səmərəlilik dərəcəsinin daim yüksələn xətt üzrə inkişaf etməsinin bariz formada özünü göstərən təzahürləri, eləcə də qarşıdakı dövr ərzində əldə olunan nailiyyətlərin miqyasının daha da genişlənməsi üçün möhkəm təməllərə söykənən zəminin formalaşmasının real göstəricisidir.**

“**Azərbaycan**”.-2011.-11 may.-N 100.-S.5.

# HEYDƏR ƏLİYEV FENOMENİ VƏ AZƏRBAYCANIN MİLLİ İNTİBAHI

**Əlikram ABDULLAYEV,**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının rektor əvəzi,
fəlsəfə elmləri doktoru, professor

**Elman NƏSİROV,**
Dövlət İdarəçilik Akademiyasının
Geostrateji Araşdırmalar Mərkəzinin
direktor müavini, tarix üzrə fəlsəfə doktoru, dosent

**Bu, bir həqiqətdir ki, dövlətin beynəlxalq koordinatlar sistemində tutduğu mövqeyi şərtləndirən parametrlər sırasında coğrafi şərait, əhalinin sayı, təbii ehtiyatlar, iqtisadi güc, müdafiə qüdrəti, milli mənəviyyat və diplomatiyanın rolu kifayət qədər böyükdür. Digər həqiqət ondan ibarətdir ki, bu parametrlər dövlətin statusunun təyinatında nə qədər əhəmiyyətli olsa da, güclü lidersiz elə bir səmərə vermir. Güclü və xarizmatik lider mövcudluğu təhlükə altında olan dövlətin xilaskarı funksiyasını yerinə yetirir, onun sonrakı inkişafının təminatçısı olur. Həmin funksiyanı Rusiyanın tarixində Böyük Pyotr, Prussiyanın tarixində Böyük Fridrix, ABŞ-ın tarixində C. Vaşinqton və A.Linkoln, Türkiyənin tarixində Böyük Atatürk həyata keçirmişlər.**

Azərbaycanın çağdaş tarixində isə bu missiya Heydər Əliyevin adı ilə bağlıdır. Məhz o, Azərbaycan dövlətçiliyini permanent xaos və böhran məngənəsindən çıxarmış, ümummilli fəlakətin-vətəndaş müharibəsinin qarşısını almış, döyüş cəbhəsində məğlubiyyətlər seriyasına son qoymuş və atəşkəs rejiminin tətbiqinə nail olmuş, sözün həqiqi mənasında, xalqımızın taleyində xilaskar missiyasını yerinə yetirmişdir.

"Heydər Əliyev Azərbaycan xalqının milli sərvətidir". Aforizmə çevrilmiş bu ifadə Heydər Əliyev şəxsiyyətinə verilmiş ən lakonik və düzgün qiymətdir. O, xalqa və Vətənə sonsuz sevgisi, dövlətçiliyə hədsiz sədaqəti ilə indiki və gələcək nəsillərə örnək ola biləcək bir fəaliyyət nümunəsi, əsl siyasi liderlik məktəbi miras qoymuşdur.

O, ölkə həyatının bütün sahələrində quruculuğun, davamlı inkişafın və islahatların banisi olmuşdur. İqtisadiyyatın yenidən qurulması, kənd təsərrüfatının dirçəlişi, peşəkar ordunun yaradılması, çevik və balanslaşdırılmış xarici siyasət kursunun həyata keçirilməsi, səhiyyə, elm, təhsil, mədəniyyət, incəsənət sahələrinin tərəqqisi, hüquqi və demokratik dövlət quruculuğu məhz onun adı ilə bağlıdır.

Təsadüfi deyildir ki, görkəmli filosof, akademik Ramiz Mehdiyev ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətinə rəhbərliyinin 34 ilini milli intibah dövrü kimi səciyyələndirmişdir. Bu dövr bir-birindən zaman və ictimai-siyasi formasiya baxımından fərqlənən iki mərhələ ilə (1969-1982 və 1993-2003-cü illər) xarakterizə olunsa da, əslində, ulu öndərin Vətənə fədakar xidməti və hakimiyyətinin hər iki mərhələsində ölkəmizin nəhəng miqyasda nailiyyətlər qazanması baxımından onlar oxşardırlar. Başqa sözlə, eyni missiyanın, sadəcə, iki mərhələsidir.

Ötən əsrin 70-ci illərinin əvvəllərində "Literaturnaya qazeta"ya verdiyi məşhur müsahibəsində "Qoy ədalət zəfər çalsın", - deyən Heydər Əliyev 1969-1982-ci illər tarixi çərçivəsində, sözün həqiqi mənasında, ədalətin zəfər çalmasına nail oldu. Ölkədə həmin illərdə 213 yeni sənaye müəssisəsi istismara verildi. Bakı Məişət Kondisionerləri, Salyan Plastmas Emalı zavodu, Sumqayıtda Kompressor zavodu, Üst Trikotaj fabriki, Bakıda Tikiş, Ayaqqabı Hissələri fabrikləri, Şampan şərabı zavodu, Gəncədə Ət kombinatı, Qənnadi fabriki, Əlvan Metallar Emalı zavodu, Lənkəranda Konserv zavodu, çay fabriki, Naxçıvanda Şüşə Qablar zavodu, Kəlbəcərdə "İstisu" mineral su zavodu, Yevlaxda Yunun İlkin Emalı fabriki və s. kimi böyük iqtisadi potensialı olan müəssisələr məhz həmin illərdə tikilib istifadəyə verildi. Qeyd edilən 13 il ərzində istehsal olunan sənaye məhsulu öz həcminə görə əvvəlki 50 ilə bərabər idi.

1969-cu ildən sonra Azərbaycanda geniş tikinti-quruculuq işlərinə start verildi. Respublika nəhəng tikinti meydanını xatırladırdı. 1975-1985-ci illərdə ümumi sahəsi 22, 2 milyon kvadratmetr olan mənzillər inşa edildi ki, bu göstərici Azərbaycanda bütün əvvəlki illərdə tikilmiş mənzillərin 70 faizini təşkil edirdi. Yeni iş yerlərinin yaradılması nəticəsində iqtisadiyyatda çalışanların ümumi sayı 1985-ci ildə 2,4 milyon nəfərə çatmışdı. Bu, 1970-ci ilin müvafiq göstəricisindən 1,5 dəfə çox idi. 1969-cu ildə orta aylıq əməkhaqqının səviyyəsinə görə Azərbaycan 15 müttəfiq respublika arasında axırıncı yerdə dayandığı halda, 1980-ci ildə 4-cü yerə çıxdı.

Həmin dövrdə kənd təsərrüfatının dirçəldilməsi və sonrakı inkişafı sahəsində də böyük işlər görüldü. Möhtərəm Heydər Əliyevin təşəbbüsü ilə 70-ci illərin əvvəllərində həyata keçirilmiş kompleks tədbirlər nəticəsində qısa müddət ərzində qidalılıq balansını itirmiş torpaqlar əsl məhsuldar torpaqlara çevrildi. İlk növbədə kənd təsərrüfatının su təhcizatı yaxşılaşdırıldı. Bu məqsədlə Yuxarı Qarabağ, Yuxarı Şirvan və Samur-Abşeron kanallarının tikintisi başa çatdırıldı, Naxçıvan Muxtar Respublikasında "Arpaçay", Lənkəranda "Xanbulançay", Masallıda "Viləşçay", Şəkidə "Əyriçay", Şəmkir və Ağstafa su dəryaçaları, "Bəhrəmtəpə" suvarma şəbəkəsi, İsmayıllıda "Aşıq Bayram" gölü istifadəyə verildi.

Əvvəllər əsassız olaraq azaldılmış taxıl, pambıq, meyvəçilik sahələri, habelə qoyunçuluq və quşçuluq yenidən bərpa olundu. Kənd təsərrüfatı üçün yüksək ixtisaslı kadrların hazırlanması sahəsində də ciddi addımlar atıldı. Yalnız Azərbaycan Respublikası Kənd Təsərrüfatı Akademiyasında 1970-1975-ci illərdə 40 min nəfərə yaxın ali təhsilli, respublikanın orta ixtisas məktəblərində isə 86, 4 min nəfər orta ixtisas təhsilli kənd təsərrüfatı mütəxəssisi hazırlandı.

Ümummilli lider Heydər Əliyevin titanik fəaliyyətinin nəticəsi olaraq 1981-ci ildə respublika tarixində ilk dəfə olaraq 402 min ton taxıl, 1 milyon 151 min ton pambıq, 1milyon 616 min ton üzüm, 644 min ton tərəvəz, 41 min ton bostan məhsulları, 26 min ton yaşıl çay yarpağı, 125 min ton mal-qara və quş əti, 340 min ton süd, 294 milyon ədəd yumurta və 12 min ton yun tədarük edildi. Ümumən, həmin illərdə kənd təsərrüfatının məcmu məhsulu 2,6 dəfə artdı.

"Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır",-deyən Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə təhsil, səhiyyə, mədəniyyət, incəsənət və milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı sahəsində də ciddi və əhəmiyyətli addımlar atıldı.

Həmin dövrdə Azərbaycanda məktəbəqədər tərbiyə müəssisələrindən tutmuş ali məktəblərədək bütün təhsil ocaqları əvvəlki illərlə müqayisədə yeni inkişaf pilləsinə qalxdı, bu istiqamətdə aparılan ardıcıl və məqsədyönlü dövlət siyasəti Azərbaycan əhalisinin təhsil, ümummədəni və intellektual səviyyəsinin yüksəldilməsində müstəsna rol oynadı.

70-ci illərdə və 80-ci illərin əvvəllərində ali təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində böyük işlər görüldü. Ölkə rəhbərinin təşəbbüsü və qayğısı ilə ali məktəblər üçün çoxlu sayda tədris korpusları, yataqxana kompleksləri tikildi.

Heydər Əliyevin 1970-80-ci illərdə Azərbaycanda ali təhsilin inkişafı yolundakı böyük xidmətlərindən biri də yeni ali təhsil ocaqlarının yaradılması idi. Ümumiyyətlə, 1970-82-ci illərdə Azərbaycanda 5 yeni ali məktəb yaradıldı, çoxlu ixtisaslar, kafedralar, problem laboratoriyaları açıldı. Əgər 60-cı illərin sonunda respublikada 12 ali məktəb, bunlarda 105 fakültə, 450 kafedra var idisə və burada 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 17 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi. Bütün bu uğurlar Heydər Əliyevin ali təhsilin inkişafına, respublikanın kadr potensialının gücləndirilməsinə əsl rəhbər qayğısının nəticəsində mümkün olmuşdur.

Ümummilli liderin Azərbaycan təhsilinin inkişafında müstəsna xidmətlərindən biri də 1970-1980-ci illərdə onun şəxsi təşəbbüsü və qayğısı sayəsində Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və xüsusi ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan və şərait yaratması olmuşdur. Onu da qeyd edək ki, Azərbaycandan kənarda təhsil alanların milli tərkibində azərbaycanlıların sayı 1970-ci ilədək 40 faiz təşkil edirdisə, ümummilli lider Heydər Əliyevin apardığı uzaqgörən siyasət nəticəsində 1976-cı ildə müvafiq göstərici 85 faizə, 1977-ci ildə 92 faizə, 1980-ci illərin əvvəllərində isə 97, 6 faizə yüksəlmişdi. Bu addımlar öz xarakteri etibarilə strateji məzmun kəsb edirdi. Daha dəqiq desək, bir tərəfdən Azərbaycanın yüksək ixtisaslı kadrlara olan ehtiyacını təmin edir, digər tərəfdən potensial Azərbaycan diasporunun formalaşması prosesinin konturları cızılırdı. Təsadüfi deyildir ki, bu gün MDB məkanında Azərbaycan diasporunun sosial tərkibinin böyük bir hissəsini məhz həmin illərdə ulu öndərin xeyir-duası ilə təhsil almış insanlar təşkil edir və onlar müstəqil dövlətimizin maraqlarını təmsil olduqları ölkələrdə şərəflə qoruyurlar.

"Xalqı həmişə mənəviyyat birləşdirmişdir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha üstündür,"-deyən ümummilli liderin qənaətinə görə, milli özünüdərkə xalqın yaratdığı və yaşatdığı mədəni sərvətlərə dərindən yiyələnməklə çatmaq olar. Ulu öndər başqa bir fikrində isə qeyd edirdi ki, məşhur filosof Bəhmənyarın və mütəfəkkir şair Nizaminin, riyaziyyatçı-astronom Nəsrəddin Tusinin və dahi lirik şair Füzulinin, orta əsrlərin böyük alimi Rəşidəddinin və üsyankar şair Nəsiminin, tarixçi Abbasqulu ağa Bakıxanovun və realist yazıçı Mirzə Fətəli Axundovun, görkəmli satiriklərdən Mirzə Ələkbər Sabirin, Cəlil Məmmədquluzadənin və bir çox başqa korifeylərin adları bu mədəniyyətin çoxəsrlik tarixini bəzəyir. Biz Azərbaycan xalqının bu və ya digər

görkəmli oğullarına ona görə minnətdarıq ki, onlar zülmətli irtica və özbaşınalıq şəraitində Azərbaycan xalqının ictimai fikrini, elm və mədəniyyətinin məşəlini göz bəbəyi kimi qorumuşlar.

Vətənsevər hər bir azərbaycanlı isə Heydər Əliyevə xalqımızın həmin görkəmli simalarının bizə miras qoyduqları misilsiz ədəbi irsə olduqca böyük dəyər verdiyi və onları yaddaşlarda əbədiləşdirdiyinə görə minnətdar olmalıdır.

Heydər Əliyev böyük siyasi ustalıqla 59 yaşında pantürkist-millətçi ittihamı ilə Sibirə sürgün edilən dahi Hüseyn Cavidin nəşini onun 100 illiyində Vətənə gətirməklə güclü milli hissə və duyğuya malik olan şəxsiyyətlərin hamısının ruhunu öz doğma vətənlərinə-Azərbaycana qaytarmış oldu.

Danılmaz həqiqətdir ki, 1930-cu illərdə SSRİ-nin dövlət mükafatı "Rusca-azərbaycanca lüğət"ə verilirdisə, məhz Heydər Əliyevin qətiyyəti sayəsində 1970-ci illərdə müəllifləri böyük dilçi alimlər professor Əlövsət Abdullayev, professor Əbdüləzəl Dəmirçizadə, professor Səlim Cəfərov, professor Muxtar Hüseynzadə, professor Yusif Seyidov və dosent Ağaməli Həsənovun olduğu 3 cildlik "Müasir Azərbaycan dili" dərsliyi eyni etimada layiq görüldü. Bu mükafatların arxasında böyük siyasi mətləblər gizlənirdi. Əgər birinci halda ali mükafat rus dilinin təbliğinə görə verilirdisə, ikinci halda doğma dilimizin inkişafına görə verilirdi. Bu, ulu öndərin milli mənəviyyatın genetik kodunun mühüm komponenti hesab etdiyi milli dilə verdiyi əvəzsiz dəyər idi. Elə bu məntiqlə də Heydər Əliyev böyük səylər hesabına 1978-ci ildə qəbul edilən Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunmasına nail olmuşdu.

Bütün bu və digər xidmətləri ilə Heydər Əliyev bədii irsimizin, dilimizin, ziyalılarımızın, milli kimliyimizin himayədarı və hamisi zirvəsinə yüksəlmiş oldu.

Fitri istedadı, iti fəhmi və zəngin siyasi təcrübəsi ilə ölkəmizin müstəqilliyini qabaqcadan görən Heydər Əliyev suveren dövlətçiliyimizin sosial-iqtisadi, ictimai-siyasi və xüsusilə də təhlükəsizlik sahəsində hansı ciddi problemlərlə sınağa çəkiləcəyini də görməyə bilməzdi. Bu baxımdan ümummilli liderin hələ sovet dövründə respublikamız üçün milli hərbi kadrların hazırlanması sahəsində gələcəyə ünvanlanmış uzaqgörən addımlarının millət qarşısında misilsiz xidmət olduğu bu gün daha aydın görünür.

Bu bir həqiqətdir ki, Sovet dövlətində ordu quruculuğu prosesi də məlum siyasi-ideoloji prinsiplərə əsaslanırdı. Rəsmi Moskva milli respublikalarda, xüsusilə də müsəlman əhalisinin yaşadığı respublikalarda milli hərbi kadrlar hazırlanması cəhdləri bir qayda olaraq qısqanclıqla qarşılayır və buna hər vəchlə mane olurdu. Müttəfiq respublikalarda hərbi tədris məktəbləri əsasən Rusiya, Ukrayna və Belorusiyada fəaliyyət göstərirdi.

"Bunları görəndə, düşünürdüm ki, yaxşı, biz Sovet İttifaqının bərabərhüquqlu müttəfiq respublikasıyıq, böyük səlahiyyətlərimiz var. Biz nə üçün ordudan təcrid olunuruq?" - bu sözləri ulu öndər Heydər Əliyev 2003-cü il aprelin 21-də, Cəmşid Naxçıvanski adına hərbi məktəbin 30 illik yubiley təntənəsində çıxış edərkən demişdi.

O, 1973-cü ildə böyük səylər nəticəsində belə bir məktəbin yaradılmasına nail oldu. Həmin dövrdə Azərbaycan ildə təxminən 60 min gənci ordu sıralarına göndərirdi. Ancaq onların əksəriyyəti inşaat batalyonlarında xidmət keçirdi. Hərbi hissələrdə azərbaycanlı zabitləri isə, necə deyərlər, barmaqla saymaq olardı. Əlbəttə, indi bəziləri 1973-cü ildə Bakıda belə bir hərbi məktəbin yaradılmasını bir zavod, fabrik tikintisi qədər adi qərar hesab edə bilərlər. Amma buna nail olmaq üçün, həqiqətən, böyük siyasət və uzaqgörənlik lazım idi. Sovet rejiminin ən güclü vaxtlarında Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayacaq məktəbin yaradılmasına rəsmi Moskva laqeyd yanaşa bilməzdi. Təsadüfi deyil ki, həmin dövrdə Bakıya təşrif buyuran çeşidli komissiyalar Azərbaycanda belə bir hərbi məktəbə ehtiyac olmadığını "əsaslandırmağa" çalışırdılar. Amma Heydər Əliyev bu cəhdlərin qarşısını qətiyyətlə almağı bacardı. Həmin vaxtdan 20 il ötdü və Heydər Əliyevin yaratdığı hərbi məktəb müstəqil Azərbaycanda ordu quruculuğu üçün əsas bazalardan birinə çevrildi. 70-ci illərdə həmin məktəbin müdavimləri olan zabitlər artıq müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin komandirləri, generallarıdırlar.

Beləliklə, Heydər Əliyev 1969-1982-ci illərdə Sovet İttifaqı çərçivəsində gələcək müstəqil Azərbaycan dövləti üçün xidmət edə biləcək bütün zəruri addımları atmağa nail oldu. 1991-ci ildə öz müstəqilliyini bəyan edən Azərbaycan Respublikası, əslində, real suverenliyinə 1993-cü ildə nail oldu. Həmin il xalqın israrlı tələbi və xahişindən sonra Heydər Əliyevin hakimiyyətə qayıdışı baş verdi və bununla da Azərbaycanda milli intibah dövrünün ikinci mərhələsi (1993-2003-cü illər) başlandı. Bu dövr ulu öndərin təbirincə desək, "müstəqilliyin əldə edilməsindən daha çətin olan onun qorunması və möhkəmləndirilməsi" ilə xarakterizə olunurdu. Həmin dövrdə Rusiyanın siyasi-hərbi elitasında formalaşmış mövqeyə görə, ərazisindən hərbi bazaları çıxarılan və birmənalı olaraq Qərbə inteqrasiya xəttini seçən Azərbaycan regionda Kremlin planları üçün birbaşa təhlükə mənbəyi rolunu oynayır. Həmin mərhələdə hakimiyyətdə olan Müsavat-AXC cütlüyünün həyata keçirdiyi səbatsız daxili və onun davamı olan xarici siyasət kursu Rusiyanın Azərbaycana münasibətdə məlum sərt

mövqeyinin formalaşmasında az rol oynamadı. Nəticədə məhz həmin illərdə Rusiyaya arxalanmaqla torpaqlarımızın Ermənistan tərəfindən işğalı həyata keçirildi.

Yeri gəlmişkən, burada bir həqiqəti də xüsusi olaraq qeyd edək ki, Azərbaycan xalqının ən ağır dərdi olan Dağlıq Qarabağ problemi ilə bağlı ulu öndər Heydər Əliyevin 1969-1982-ci illərdə həyata keçirdiyi siyasətin nəticəsində bu dövrdə erməni millətçiləri bir dəfə də olsun ölkəmizə qarşı ərazi iddialarını açıq şəkildə dilə gətirməyə cəsarət etmədilər və buna imkan verilmədi. Akademik Ramiz Mehdiyev Heydər Əliyev fenomeni ilə bağlı tədqiqatlarında çox düzgün olaraq qeyd edir ki, "akademik Aqanbekyanın M.Qorbaçovun Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə ilkin razılıq verilməsi barədə bəyanatı və bununla da münaqişənin ilkin qığılcımının közərməsi məhz Heydər Əliyevin Siyasi Büro üzvlüyündən istefasından cəmi üç həftə sonra baş verdi".

Bundan savayı, Müsavat-AXC cütlüyünün mövcud şəraitə adekvat olmayan məqamda "Cənubi Azərbaycan" problemini qaldırması nəticəsində İranla da münasibətlər son dərəcə kəskinləşdi. Bu siyasətin nəticəsində faktiki olaraq Azərbaycan həm Şimaldan, həm də Cənubdan ağır təzyiq altına düşdü. ABŞ Konqresi isə Azərbaycanı dövlət səviyyəsində hər cür yardımdan məhrum edən "907-ci əlavə"ni qəbul etdi.

Bu şəraitdə dövlətçiliyimiz üçün ən təhlükəli proses separatizm və onun nəticəsində ərazi bütövlüyümüzün növbəti dəfə pozulması təhlükəsi ilə bağlı idi. Erməni işğalçılarının aramsız hücumları, Cənubda "Talış Muğan Respublikası"nın elan edilməsi, şimalda "Sadval" təşkilatının ərazi iddiaları və Gəncədə Surət Hüseynova məxsus hərbi hissənin üsyan etməsi həmin dövrdə ölkəmizin dəhşətli siyasi kataklizmlər mərhələsində olduğunu bir daha təsdiqləyir. Əslində respublikamız real vətəndaş müharibəsi astanasında idi. Ölkədə hakimiyyətsizlik və xaos hökm sürürdü. Yalnız Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra bu ağır problemlər öz həllini tapmağa başladı. Lakin bu prosesin özü də hamar yol ilə getmədi. 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında Azərbaycanın müstəqilliyini istəməyən xarici qüvvələrin himayəsi ilə respublikamızda dövlət çevrilişlərinə cəhdlər edildi. Prezident Heydər Əliyevlə xalqın sarsılmaz birliyi bu sınaqlardan da uğurlu çıxmağı təmin etdi. Heydər Əliyev xalqımızın və dövlətçiliyimizin tarixində, bir sözlə desək, əsl Xilaskar missiyasını yerinə yetirdi.

Burada bir haşiyə çıxmaq yerinə düşərdi. Məlum olduğu kimi, 1997-ci ildə Prezident Heydər Əliyevin ABŞ-a ilk rəsmi səfəri zamanı ona bu dövlətin ən məşhur 4 prezidentindən biri olan (C.Vaşinqton, T.Cefferson F.D. Ruzveltlə birlikdə) Avraam Linkolnun büstü bağışlanmışdı. Bu, rəmzi mənası olan bir hadisə idi. Prezident A.Linkoln ABŞ-ın bütövlüyünün qorunması naminə separatçı Cənub ştatları ilə mübarizə aparmalı olmuş və nəticədə ölkə miqyasında 600 mindən artıq itkilərin verilməsinə baxmayaraq, dövlətçiliyin məhvinin qarşısını almışdı. Amerikalılar indiyədək seçdikləri bütün prezidentlər içərisində yalnız 4-nə heykəl qoyublar. Həmin prezidentlərdən biri də məhz A.Linkolndur. Zənnimizcə, amerikalıların Heydər Əliyevlə Avraam Linkoln arasında paralel aparmalarının motivi gün kimi aydındır. Hər ikisi öz xalqları və dövlətlərinin xilaskarıdırlar.

Yuxarıda sadalanan mürəkkəb problemlərin həlli məqsədilə Heydər Əliyev təkcə düzgün daxili siyasət kursunu deyil, həm də onun davamı olan uğurlu xarici siyasət strategiyasını müəyyənləşdirdi. Balanslı və çoxvektorlu xarici siyasət kursu kimi xarakterizə olunan bu siyasətin prioritet istiqamətlərindən birini də "Yeni neft diplomatiyası" təşkil edirdi.

Azərbaycanın yeni enerji strategiyasının memarı ümummilli lider Heydər Əliyevin ötən əsrin 90-cı illərində müəllifi olduğu iki siyasi qərar ölkəmizin neft-qaz siyasətinin formalaşmasında həlledici əhəmiyyətə malik oldu, eyni zamanda, respublikamızın Avropanın enerji təhlükəsizliyinə töhfə verməyə hazır olduğunu nümayiş etdirdi. 1994-cü il sentyabrın 20-də dünyanın 8 ölkəsinin 12 şirkəti ilə "Əsrin müqaviləsi"nin imzalanması ölkəmizin yeni neft strategiyasının başlanğıcı oldu. 1996-ci il iyunun 6-da regionun, eləcə də Avropanın enerji təhlükəsizliyində vacib rol oynayan "Şahdəniz" qaz yatağının işlənməsinə dair müqavilənin imzalanması ilə bu proses dönməz xarakter aldı.

Bu gün ölkənin təsdiq edilmiş enerji ehtiyatları 1, 5 milyard tondan artıq neft və 2 trilyon kubmetr qazdan ibarətdir və 7 kəmərlə Avropa və dünya bazarlarına çatdırılır. Bunlardan 3-ü neft (Rusiya, Gürcüstan və Türkiyə istiqamətləri) 4-ü isə qaz ( Türkiyə, Gürcüstan, Rusiya və İran istiqamətləri) kəmərləridir. Bunların içərisində 2006-cı ilin mayında Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri və həmin ilin sentyabrında Bakı-Tbilisi-Ərzurum (BTC) qaz boru kəmərlərinin istifadəyə verilməsi həm regional, həm də Avropanın enerji təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb etmişdir. BTC sutkada 1 milyon barrel, ildə 50 milyon ton neftin ixracını həyata keçirir. BTC boru kəməri ilə isə ildə 25 milyard kubmetr qaz ixrac edilir. Yeri gəlmişkən, onu da qeyd edək ki, 2010-cu ildə ölkəmizdə 51,5 milyon ton neft, 27 milyard kubmetr qaz hasil edilmişdir. Təkcə "Şahdəniz" yatağında təsdiqlənmiş qaz yataqları 1,2 trilyon kubmetr təşkil edir. Azərbaycan Prezidenti İlham Əliyevin təbirincə desək, bu o deməkdir ki, əgər Azərbaycan ancaq öz tələbatını

ödəsə və deməli xaricə qaz ixrac etməsə, bu ehtiyatlar ölkəmizə 100 ilə kifayət edər. Digər yataqlardakı qaz ehtiyatlarımız 300 milyard kubmetrdən artıqdır.

Heydər Əliyevin müəllifi olduğu "Yeni neft diplomatiyası"nın möhtəşəm uğurlarının yuxarıdakı yığcam təqdimatı belə sübut edir ki, məhz ulu öndərin unikal siyasi məharəti sayəsində Azərbaycan bütün sferalarda, xüsusilə də enerji sahəsində regionun həlledici faktoruna çevrilmişdir.

Ümummilli lider Azərbaycanda demokratik inkişaf proseslərinin də əsasını qoydu. Ölkəmizdə şəxsiyyətin azadlığı və toxunulmazlığı, habelə onun hüquqi müdafiəsi təmin edildi, çoxpartiyalı sistem üçün əsaslar yaradıldı, siyasi plüralizm, vicdan və etiqad azadlığı, azlıqların hüquqları, qanun qarşısında bərabərlik təmin edildi. Azərbaycan Respublikasının qanunvericilik aktlarında əks olunan, onun ayrılmaz komponenti olan təqsirsizlik prezumpsiyası təmin edildi. Bundan savayı, Konstitusiya Məhkəməsi, üçpilləli məhkəmə sistemi, yeni məhkəmə korpusu yaradıldı, məhkəmələrin müstəqilliyi və prosedur qaydalarının şəffaflaşması təmin edildi, ölüm cəzası ləğv edildi, on minlərlə insana amnistiya verildi və böyük sayda məhkum bağışlandı, senzura ləğv edildi, KİV-in azadlığı və QHT-lərin sərbəst fəaliyyəti təmin edildi.

Ümummilli liderin miras qoyduğu irsin öyrənilməsi, təbliği və tətbiqində Milli Məclisin deputatı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xidmətləri müstəsna əhəmiyyət kəsb edir. Başqa sözlə, ulu öndərin irsinin öyrənilməsi istiqamətində irimiqyaslı proqramların həyata keçirilməsini dəstəkləmək, Azərbaycan xalqının rifahının yüksəldilməsinə yönəldilmiş təşəbbüsləri himayə etmək, ölkədə elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, milli-mənəvi dəyərlərə sadiq gənclərin yetişdirilməsinə və digər mühüm vəzifələrin yerinə yetirilməsinə nail olmaq ölkənin birinci xanımının rəhbərlik etdiyi təşkilatın genişmiqyaslı fəaliyyətinin prioritet istiqamətlərini təşkil edir və geniş ictimaiyyət tərəfindən olduqca yüksək dəyərləndirilir.

Azərbaycanın qısa zaman kəsiyində demokratik inkişaf yolunda əldə etdiyi bu və sonrakı uğurların bir sıra Qərb hökumət dairələrində adekvat qiymətləndirilməməsi, əksinə, bu istiqamətdə onların real həqiqətlərə söykənməyən bəyanatlar verməsi acı təəssüf doğurur. Əslində, ərazisinin 20 faizi Ermənistan dövlətinin işğalı altında olan və 1 milyondan artıq məcburi köçkünü və qaçqını olan gənc Azərbaycan Respublikasından əsrlərlə formalaşmış Qərb demokratiya standartlarını tələb etməyin özü düzgün deyildir. Bunun üçün ən azı onilliklər lazımdır. Müqayisə üçün qeyd edək ki, ABŞ-ın 235 illik demokratiya tarixi vardır. Təkcə Konstitusiyanı qəbul etmək üçün ABŞ-a 11 il (1787-ci il), ölkəni köləlikdən azad etmək üçün 89 il (1865-ci il, Konstitusiyaya 13-cü düzəliş), qadınlara səs hüququ vermək üçün 144 il (1920-ci il, Konstitusiyaya 19-cu düzəliş) və bütün vətəndaşları qanun qarşısında bərabər etmək üçün düz 188 illik (1964-cü il, Konstitusiyaya 24-cü düzəliş) zaman lazım olmuşdur. Deməli, ABŞ-ın öz tarixi təcrübəsi göstərir ki, yetkin demokratiya dövləti olmaq üçün Azərbaycana müəyyən vaxt lazımdır və ən əsası odur ki, respublikamızda bu istiqamətdə davamlı olaraq konkret addımlar atılmaqdadır.

Mayın 10-da müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 88-ci ildönümüdür. Azərbaycan xalqı artıq 8 ildir ki, ulu öndərin ad gününü onsuz, lakin onun siyasi xətti ətrafında daha sıx və monolit birlik nümayiş etdirərək keçirir. Xalqımız Heydər Əliyevin fiziki itkisindən nə qədər çox kədərlənsə də, təskinliyini onda tapır ki, bu gün ulu öndərin şah əsəri olan müstəqil Azərbaycan etibarlı əllərdədir, davamlı və dinamik inkişaf tempinə malikdir. Zəmanəmizin dühasından "Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm",-qiymətini alan Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır. O, Azərbaycanın çağdaş tarixinə yeni missiya ilə daxil olmuşdur. Bu missiyanın konturları hələ 1994-cü ildə "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" - deyərək ictimai fəaliyyətə başlayan cənab İlham Əliyevin 2003-cü ildə "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam, hər bir Azərbaycan vətəndaşının qayğı və problemlərinin həlli yolunda bütün bacarıq və qabiliyyətimi əsirgəməyəcəyəm" fikirləri ölkəmizin son səkkiz ildə dayanıqlı inkişaf modelinin formalaşması ilə real məzmun kəsb etmiş, respublikamız beynəlxalq rəqabət meydanına deyil, əməkdaşlıq məkanına çevrilmişdir.

**“Xalq qəzeti”.-**2011.-11 may.-N 100.-S.6.

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA HÜQUQİ DÖVLƏT QURUCULUĞUNUN BANİSİDİR

**Rövşən RZAYEV,**
Milli Məclisin deputatı,
Hüquq siyasəti və dövlət quruculuğu
komitəsinin sədr müavini

**Xalqımız qərinələr boyu qazandığı dövlətçilik ənənələrini məhz Heydər Əliyev epoxasında təkmilləşdirərək sistem halına salmış, millət kimi mövcudluğunu, özünüidarə bacarığını ən yüksək həddə nümayiş etdirmişdir. Azərbaycanı müstəqil dövlət quruculuğuna aparan kəşməkəşli və şərəfli yol əslində məhz ulu öndərin hakimiyyətə gəlişindən sonra başlamışdır. Heydər Əliyev böyük siyasətdə olduğu bütün dövrlərdə şəksiz liderliyi, qətiyyət və prinsipiallığı, uzaqgörənliyi ilə uğur qazanıb. Çünki o, yaşadığı dövrün mürəkkəb, ziddiyyətli proseslərindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətdə belə təmkinini itirməyən və son nəticədə xalqının maraqlarını praqmatik dəqiqliklə hesablaya bilən lider idi.**

Heydər Əliyevin 1969-cu ildə respublika partiya təşkilatının rəhbəri seçilməsi də sözsüz ki, onun liderlik keyfiyyətlərinə, təşkilatçılıq bacarığına, şəxsi-intellektual imkanlarına o vaxtkı SSRİ rəhbərliyi tərəfindən verilən yüksək qiymətin göstəricisi idi. Lakin burada bir məqamı vurğulamaq vacibdir. Heydər Əliyev bu etimadın müqabilində sadəcə respublikada Moskvanın təlimat və göstərişlərini həyata keçirən bir rəhbərə çevrilmədi. Əksinə, o, sovet idarəçiliyinin şablonlaşmış texnologiyasını respublikanın rifahına, inkişafına yönəltməyi bacaran bir lider kimi özünü təsdiq etdi. İndi bunu aydın dərk edirik ki, Heydər Əliyev o dövrdəki fəaliyyəti ilə həm də sovet dövlətinin iqtisadi imkanlarını Azərbaycanın uzun illər sonrakı tərəqqisi və nəticə etibarilə indiki müstəqil dövlətçiliyimiz üçün maksimum dərəcədə sərf etməyi bacarmışdır.

Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə Azərbaycanda əldə edilən iqtisadi nailiyyətlər, təməli atılan nəhəng layihələr, həmin layihələrin bugünkü Azərbaycan üçün strateji önəmi barədə çox danışmaq olar. Amma mən sadəcə iki məqamı qeyd etmək istərdim.

Heydər Əliyev sovet Azərbaycanına rəhbərliyə başladığı dövrdə respublika bir çox sahələrdə olduğu kimi, yüksək ixtisaslı milli kadrların hazırlığı məsələsində digər respublikalardan geri qalırdı. Yüksək səviyyəli təhsil və tədrisin hər bir xalqın gələcəyinin mühüm şərti olduğunu nəzərə alan ulu öndər qısa müddət ərzində bu geriliyin aradan qaldırılması üçün kompleks qərarlar qəbul etdi. Azərbaycanda yeni ali təhsil müəssisələri, fakültələr açılmaqla yanaşı, hər il yüzlərlə azərbaycanlı gənc SSRİ-nin aparıcı təhsil ocaqlarına oxumağa göndərilirdi. Ümumilikdə 70-80-ci illərdə respublikadan 15 minə yaxın gənc keçmiş ittifaqın ən qabaqcıl ali məktəblərində təhsil almışdır. Yüksək ixtisasla respublikaya qayıdan bu gənclər ordusu Azərbaycanın elmi-texniki inkişafına, intellektual potensialına böyük töhfə idi və bu gün onların böyük hissəsi dövlət idarəçiliyində, iqtisadiyyatda, elm və təhsildə uğurla çalışırlar.

Heydər Əliyevin hələ 70-ci illərdə Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayacaq məktəbin yaradılmasına nail olması isə onun ən mühüm tarixi xidmətlərindən biridir. Əlbəttə, indi bəziləri 1973-cü ildə Bakıda hərbi məktəbin yaradılmasını respublikada bir zavod, fabrik tikintisi qədər adi qərar hesab edə bilərlər. Amma o vaxt buna nail olmaq böyük iradə, cəsarət və uzaqgörənlik tələb edirdi. O vaxtlar SSRİ-də mövcud olan praktikaya görə hərbi məktəblər əsasən üç slavyan respublikasında - Rusiya, Ukrayna və Belorusiyada fəaliyyət göstərirdi, müsəlman-türk respublikalarında belə məktəbin açılmasından isə söz belə getmirdi. Heydər Əliyev 2003-cü ilin aprelində, C.Naxçıvanski adına hərbi məktəbin yubiley tədbirində həmin dövrü belə xatırlamışdı: "O vaxt düşünürdüm, yaxşı, biz Sovet İttifaqının bərabərhüquqlu müttəfiq respublikasıyıq. Biz nə üçün ordudan təcrid olunuruq? Və nəticədə bu məktəbi yarada bildik. Bu məktəbi yaradanda heç vaxt ağlıma gətirə bilməzdim ki, 30 ildən sonra mən yenə də bu məktəblə bir yerdə onun yubileyini keçirəcəyəm. Ancaq bu şərəf mənə qismət olub və mən özümü xoşbəxt hesab edirəm".

Azərbaycan müstəqilliyini bərpa edib milli ordu quruculuğuna başlayanda bu məktəb hərbi kadr hazırlığının mühüm baza tədris ocağına çevrildi. Bu, Heydər Əliyev uzaqgörənliyinin, vətənpərvər liderin xalqı qarşısında tarixi xidmətinin əyani təsdiqidir.

Ümummilli lider Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə dövlət-vətəndaş münasibətlərinin də hüquqi müstəvidə nizamlandığı, insan hüquq və azadlıqlarının təmin olunduğu ədalətli cəmiyyətin formalaşmasında müstəsna rol oynamışdır. Sözsüz ki, bu fəaliyyətin ən əhəmiyyətli hissəsini ulu öndərin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövr təşkil edir. Heydər Əliyev 1993-cü ilin yayında xalqın çağırışı ilə respublikaya rəhbərliyə qayıdanda Azərbaycan bütünlüklə iflas həddində idi, hüquqi dövlət quruculuğu, ədalət və qanunçuluqdan

danışmaq isə ümumiyyətlə, mümkün deyildi. 1991-1992-ci illərdə ölkədəki faktiki hakimiyyətsizlik, hərc-mərclik, cinayətkarlığın sürətlə artması dövlət təsisatlarının fəaliyyətinin ciddi şəkildə aşınmasına, hüquq sistemində qeyri-sağlam mühitin yaranmasına rəvac vermişdi. Ermənistanın ölkəmizə qarşı işğalçı müharibəsinin davam etməsi, ölkədə bütün sahələri bürümüş total böhran, daxili siyasi didişmələr Azərbaycanı dövlət olaraq məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu.

Belə bir vaxtda Azərbaycan xalqı üzünü Heydər Əliyevə tutdu, onun müdrikliyinə güvəndi. Həmin ümumxalq etimadı böyük öndərin dövlətçilik fəaliyyətində hər zaman ona güc, qüdrət verib.

"Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Müstəqil Azərbaycanın çətin vaxtlarında, dövlətçiliyimizin ağır günlərində Heydər Əliyevin göstərdiyi əzm və qətiyyət bu sözlərdəki həqiqəti dəfələrlə təsdiqləyib.

Ulu öndərin Azərbaycan tarixində böyük missiyası olduqca ağır şəraitdə müstəqilliyimizi xilas etmək, hüquq və ədalətə, demokratik inkişafa əsaslanan güclü dövlətçiliyin əsasını qoymaq oldu. Məhz böyük öndərin hakimiyyətə qayıdışından sonra Azərbaycanın müstəqillik tarixində yeni, real dövlət quruculuğu səhifəsi açıldı. Prezident Heydər Əliyevin 1994-cü il 9 avqust tarixli "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında" fərmanı respublikada qanunun aliliyinin əsas istiqamətlərini müəyyənləşdirən mühüm hüquqi sənəd idi. Heydər Əliyevin qətiyyəti, dövlətçilik əzmi sayəsində 1994-cü ilin oktyabr və 1995-ci ilin martında dövlət çevrilişi cəhdlərinin qarşısının alınması bu yöndə dönüş mərhələsi oldu. Ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsi, qanunsuz silahlı birləşmələrin fəaliyyətinə, hərbi çevriliş və qiyam vasitəsilə hakimiyyətə gəlmək cəhdlərinə birdəfəlik nöqtə qoyulması Azərbaycanın inkişafını möhkəm hüquqi rels üzərində çıxardı.

Böyük öndərin bilavasitə rəhbərliyi altında hazırlanan, geniş ictimai müzakirələrdən keçərək 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunan yeni Konstitusiya Azərbaycanda dövlət quruculuğu sahəsində fundamental islahatlara yol açdı. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açdı. Bu hadisə dövlət müstəqilliyinin prioritet istiqamətlərini müəyyənləşdirmək və həyata keçirmək yolunda əsas istinad mənbəyi rolunu oynadı. Hüquqi dövlət quruculuğu, ölkənin iqtisadi və sosial inkişafı, Azərbaycanda mülki cəmiyyətin qurulması, milli təhlükəsizlik və xarici siyasət problemlərinin həlli, milli-mənəvi inkişaf istiqamətində görülən ardıcıl işlər bütövlükdə müstəqillik və milli dövlətçilik amalının praktiki baxımdan bərqərar olmasına yönəlmişdir.

Beynəlxalq ekspertlər tərəfindən dünyanın demokratik konstitusiyalarından biri kimi qiymətləndirilən Əsas Qanun Azərbaycanın hüquqi-qanunvericilik müstəvisini dünyanın mütərəqqi, demokratik dəyərləri ilə zənginləşdirdi. Azərbaycanda hakimiyyət bölgüsü prinsipini, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının bünövrəsi qoyuldu. Konstitusiyanın mühüm cəhətlərindən biri də vətəndaş hüquq və azadlıqlarına aid geniş yer ayrılması (bütün müddəaların təxminən üçdə biri) ilə bağlıdır.

Yeni Konstitusiya əsasında demokratik cəmiyyətin formalaşdırılması üçün hər cür şərait yaradılmış, çoxpartiyalı sistem əsasında demokratik parlament seçilmiş, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlığı, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri bərqərar olmuşdur. Sistemli şəkildə həyata keçirilən köklü məhkəmə-hüquq islahatlarının, siyasi liberallaşmaya xidmət edən tədbirlərin əsas qayəsində insana qayğı, şəxsiyyətə və insan ləyaqətinə hörmət amili dayanmışdır.

Konstitusiya respublikamızın gələcək inkişaf prioritetlərini müəyyənləşdirmiş, iqtisadi, siyasi və hüquqi islahatların bazisinə çevrilmişdir. Əsas Qanunda xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olması, dövlətin demokratik, hüquqi və dünyəviliyi, idarəçiliyin hakimiyyət bölgüsü əsasında təşkil olunmasının təməl prinsipləri təsbit olunmuş, insan hüquq və azadlıqlarının təmini ali məqsəd kimi önə çəkilmişdir. Bu mərhələdən etibarən ümummilli lider Heydər Əliyevin rəhbərliyi və fəal iştirakı ilə ölkənin demokratik dəyərlər üzərində qurulan möhkəm qanunvericilik bazası yaradılıb, inkişaf etdirilərək təkmilləşdirilmişdir.

İctimai həyatın ən müxtəlif sahələrində haqq-ədalət prinsipinin qorunmasına çalışan, bunu xalq-dövlət münasibətlərinin əsas formuluna çevirən Heydər Əliyev yalnız bu yolla dövlətlə xalq arasında möhkəm mənəvi, siyasi və hüquqi bağlantıya, qarşılıqlı etimada nail olmağı mümkün hesab etmişdir. Ötən dövrə nəzər salsaq görərik ki, məhz Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti bu istiqamətdə zəngin hüquqi islahatlar yolu keçmiş, nəticədə keçmiş Sovet İttifaqından miras qalmış hüquq sistemi demokratik prinsiplər əsasında yenidən qurulmuşdur. 1995-ci ildən sonra insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, qanunun aliliyinin

təmini məqsədilə aparılan hüquqi islahatların əsasında inkişaf etmiş dövlətlərin hüquqi dövlət quruculuğu təcrübəsi, ümumbəşəri demokratik prinsiplər, Azərbaycan xalqının dövlətçilik tarixi və ənənələri dayanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 21 fevral tarixli sərəncamı ilə yaradılmış Hüquq İslahat Komissiyası tərəfindən işlənib hazırlanmış "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında" qanunlar ölkəmizdə məhkəmə-hüquq islahatları sahəsində atılan ilk mühüm addımlar olmaqla, müstəqil məhkəmə sisteminin yaradılmasına və fəaliyyət göstərməsinə imkan yaratmış, insan hüquq və azadlıqlarının müdafiəsi məqsədilə məhkəmə hakimiyyətinin müstəqil fəaliyyətinə təminat yaratmışdır. Azərbaycan Respublikası Prezidentinin 1 dekabr 1998-ci il tarixli "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə" fərmanı əsasında ardıcıl surətdə aparılan məhkəmə islahatlarının başlıca məqsədi Azərbaycanda Qanunun aliliyinin təmin edilməsi, məhkəmə hakimiyyətinin dövlət idarəçilik mexanizmində nüfuzlu və müstəqil təsisat kimi təşəkkül tapması, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkili, cinayət və mülki mühakimədə demokratik prinsiplərin qorunması, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsi və digər məsələlərin həlli olmuşdur.

Sistemli şəkildə həyata keçirilən məhkəmə-hüquq islahatlarının, siyasi liberallaşmaya xidmət edən tədbirlərin əsasında insana qayğı, şəxsiyyətə və insan ləyaqətinə hörmət amili dayanmışdır. 1998-ci il fevralın 10-da Azərbaycanda ölüm hökmü ləğv edildi. Qeyd etmək istərdim ki, Azərbaycan MDB məkanında bu tarixi qərarı qəbul edən ilk dövlət idi. O vaxt hətta Avropa Şurasının üzvü olan bir çox ölkələr analoji addım atmamışdılar. 1998-ci il iyunun 18-də isə böyük öndərin fərmanı ilə təsdiq olunan "Azərbaycanda insan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" hüquqi islahatlar prosesində yeni mərhələ açdı. Dövlət Proqramında Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili təsisatının yaradılması, normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, bu sahədə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə tədqiqat və təhsil proqramları üzrə mütəxəssislərin hazırlanması və digər mühüm məsələlər nəzərdə tutulmuşdur.

Ötən müddət ərzində dövlət proqramında nəzərdə tutulmuş çoxşaxəli tədbirlər uğurlu həllini tapmışdır. Respublikamız qanunların təkmilləşdirilməsi mərhələsində təkcə beynəlxalq təcrübəni öyrənib tətbiq etməklə kifayətlənməmiş, eyni zamanda, müxtəlif beynəlxalq konvensiya və sazişlərə qoşularaq insan hüquq və azadlıqlarına sadiqliyini sübuta yetirmişdir. Ötən müddətdə Azərbaycan 200-dən artıq beynəlxalq konvensiya və sazişə, o cümlədən "İşgəncələrin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzaların qarşısının alınması haqqında", "İnsan hüquq və əsas azadlıqlarının müdafiəsi haqqında", "Ekstradisiya haqqında", "Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında", "Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi haqqında" konvensiyalara qoşulmuşdur. Eyni zamanda, Azərbaycan BMT Baş Assambleyasının "İrqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında", "Aparteid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" "Genosid cinayətlərinin qarşısının alınması və onun cəzalandırılması haqqında", "Terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə haqqında" və bir sıra başqa konvensiyaların üzvü olmaqla, onlardan irəli gələn öhdəlikləri yerinə yetirmiş, eyni zamanda, hüquqi dövlət quruculuğu prosesində ATƏT, Avropa Şurası, BMT, Avropa Birliyi və digər beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etmişdir.

Ölkəmizin qoşulduğu beynəlxalq sənədlərin təxminən yarıdan çoxu insan hüquq və azadlıqları ilə bağlıdır. Bütün bunlar isə demokratikləşmə prosesinin sürətlənməsinə əsaslı zəmin olan hüquqi dövlət ideyasının gerçəkləşməsi baxımından mühüm əhəmiyyət kəsb edir. 1998-ci ildə Azərbaycanda Konstitusiya Məhkəməsi fəaliyyətə başlamışdır.

1998-ci ildə "Məhkəmələr və hakimlər haqqında" qanunun qəbulu ilə başlanan məhkəmə sisteminin yeni əsaslarla təşəkkülü prosesinin birinci mərhələsi 2001-ci ilədək davam etmişdir. Aparılan islahatlar nəticəsində ölkənin bütün hüquq sistemində köklü dəyişikliklərə səbəb olmuş mütərəqqi qanunlar, yeni Mülki və Mülki-Prosessual, Cinayət və Cinayət-Prosessual, Cəzaların İcrası və s. məcəllələr qəbul edilmişdir. Bütün bu qanunlar demokratik prinsiplər və beynəlxalq hüquq normalarının tələblərinə uyğun hazırlanmış və beynəlxalq ekspertlər tərəfindən yüksək qiymətləndirilmişdir.

Bu islahatların başlıca nəticəsi keçmiş sovet məhkəmə sisteminin ləğvi və ölkədə birinci instansiya, apelyasiya və kassasiya instansiyalarından ibarət yeni üçpilləli müstəqil məhkəmə sistemi yaradılması olmuşdur. "Məhkəmələr və hakimlər haqqında" qanuna müvafiq olaraq hakimlərin test üsulu ilə seçilməsi üçün üç hakimiyyət qolu ilə qarşılıqlı fəaliyyət göstərən yeni qurumun - Məhkəmə Hüquq Şurasının yaradılması (2004-cü il) məhkəmə sistemində islahatlarda daha bir mühüm kimi qeyd olunmalıdır.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasəti inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev hüquqi dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirmişdir. Ötən müddətdə Azərbaycanda həyata keçirilən dövlət siyasətinin üstün istiqamətlərindən biri də vətəndaş cəmiyyəti institutunu möhkəmlətmək, siyasi plüralizm, demokratikləşmə prosesini dərinləşdirmək və bu istiqamətdə Qərbə inteqrasiya - Avropa Şurası, Avropa Birliyi və ATƏT kimi mötəbər təşkilatlarla əməkdaşlıq xəttini davam etdirməkdən ibarətdir.

Azərbaycanın güclü, müasir və zəngin dövlətə çevrilməsi üçün həm iqtisadi, həm də hüquqi və siyasi islahatlar paralel şəkildə aparılmalı və onlar bir-birini tamamlamalıdır. Dövlət başçısı cənab İlham Əliyev Azərbaycanın sosial-iqtisadi inkişafına paralel gedən demokratikləşmə proseslərini bir-birindən təcrid olunmuş şəkildə götürmədən hər iki xətti Azərbaycanın gələcək yüksəlişinin vahid istinad nöqtəsi kimi əsaslandırır. Azərbaycan Prezidenti İlham Əliyev son illərdə cəmiyyətin hüquq sisteminin əsasını təşkil edən milli qanunvericiliyin təkmilləşdirilməsi prosesini diqqət mərkəzində saxlamışdır. Məhkəmə, ədliyyə, polis və prokurorluq orqanlarının daha səmərəli fəaliyyətinə, habelə insan hüquqlarının etibarlı təminatına yönəlmiş yeni qanun və qərarlar qəbul edilmişdir. 2009-cu il martın 18-də Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərlə əlaqədar keçirilmiş referendum da xalqın suveren hüququnu və azad siyasi iradəsini ifadə etməsinə maksimum imkan yaratmaqla, demokratikləşmə prosesində keyfiyyətcə yeni mərhələnin əsasını qoymuşdur.

Bütün bunlar göstərir ki, Azərbaycanda əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin inkişafı, ictimai həyatın bütün sahələrini əhatə edən demokratikləşmə prosesləri uğurla davam etdirilir, qanunun aliliyinin təmini, humanist, bəşəri dəyərlərin bərqərar olması üçün böyük işlər görülür. Azərbaycan qloballaşan dünyanın tərkib hissəsi kimi bu inteqrasiya magistralında uğurla irəliləyir, sürətlə demokratik dəyərləri mənimsəyir. Ölkəmizin ildən-ilə artan sosial-iqtisadi imkanları isə deməyə əsas verir ki, Azərbaycan demokratik keçid mərhələsini tezliklə başa vuraraq dünyanın bu sahədə inkişaf etmiş dövlətləri ilə eyni cərgədə dayanmaq imkanı əldə edəcəkdir.

**“Xalq qəzeti”.-**2011.-13 may.-N 102.-S.3.

# HEYDƏR ƏLİYEV İDEYALARI AZƏRBAYCANI DAİM MÜASİRLİYƏ APARIR

**Fəttah HEYDƏROV,**
Milli Məclisin deputatı

**...ATƏT-in növbəti sessiyasından geriyə - Vətənə dönürəm. Gecədən xeyli keçmiş Bakı üzərində dövrə vurub yerə enməyə hazırlaşan təyyarənin kiçik pəncərəsindən müşahidə etdiyim möhtəşəm mənzərələr ürəyimi dağa döndərir. Paytaxtın alışıb-yanan, sayrışan gur işıqları zülmət gecənin ənginliklərini yararaq geniş, müasir yollara, yaraşıqlı küçələrə, abad xiyabanlara nur səpir, şəhərin müasir simasını bütün cizgiləri ilə əks etdirirdi.**

**Cəmi bir neçə dəqiqə içində seyr etdiyim heyrətamiz görüntülərdən təsirlənərək düşünürəm: "İlahi, paytaxtımız necə də müasirləşib, gözəlləşib!". Gecə saatlarında nura qərq olan bu şəhərin müasirliyini, gözəlliyini qəlbən, ruhən duymaq, onlara valeh olmaq və həm də qısa zamanda görülən işləri dəyərləndirmək üçün yetər ki, bir neçə gün Bakıdan ayrı düşəsən! Bax, onda şəhərimizin digər şəhərlərlə müqayisədə necə sürətlə inkişaf etdiyinin və müasirləşdiyinin daha çox fərqində olursan!**

**Bəli, doğma paytaxtımız müasirliyinə görə bu gün heç bir Avropa şəhərindən geri qalmır. Müqayisə kimlərəsə mübaliğəli görünməsin: səmimi qənaətimdir ki, Bakımız göz oxşayan yenilikləri ilə indi əksər Avropa şəhərlərini xeyli üstələyir. Bunu təkcə biz demirik, şəhərimizin əcnəbi qonaqları da açıq etiraf edirlər. Yeri gəlmişkən, ATƏT-in sessiyasında iştirak edən xarici parlamentarilərdən biri bizimlə söhbət əsnasında bunu açıq söyləməyə özündə cəsarət tapdı. Dedi ki, dünyanın əksər ölkələrini gəzsə də, Bakı kimi müasir, gözəl şəhərlə nadir halda rastlaşıb.**

**Paytaxtımız haqqında deyilən xoş sözlər vətəndaş olaraq məndə qürur və razılıq hissləri doğurmaqla yanaşı, xəyal qanadlarından uzaq keçmişə, milli tarixə çevrilmiş illərin unudulmaz xatirələrinə apardı.**

## Yeni tarixi epoxanın başlanğıcı

Azərbaycanın ötən əsr tarixinin ən ziddiyyətli, kəçməkəşli mərhələlərini, fərəhli, acılı-şirinli günlərini həyatımda yaşamalı olmuşam. Xalqın taleyində iz buraxan bu proseslər bu gün də gözlərim önündən kino lenti kimi keçir. Millətin düşünən beynini məhv etməyə yönəlmiş qanlı repressiya dövründə - ötən əsrin 30-cu illərində dünyaya göz açıb, uşaqlıq illərimi İkinci dünya müharibəsinin ağır məhrumiyyətləri, çətinlikləri içində keçirmişəm. Bir gənc kimi həyata müstəqil addımlarımı atanda şəxsiyyətə pərəstiş dövrünün mənəvi sarsıntılarını qabarıq duymuşam.

Sonrakı mərhələdə səmimi gənc çılğınlığı ilə partiya həyatında iştirak etsəm də, mərkəzin Azərbaycana ögey və biganə münasibəti həmişə qəlbimi ağrıdıb. Xüsusən də, ötən əsrin 60-cı illərində partiya iclaslarında inkişaf və tərəqqi ilə bağlı səslənən gurultulu bəyanatların gerçəklikdən tamamilə uzaq olduğunu görür, qəlbən sarsılırdım. Həmin dövrdə keçmiş SSRİ-nin ən geridə qalmış respublikalarından biri olan Azərbaycan taleyin ümidinə buraxılmış kimi görünürdü. İqtisadi, siyasi və mənəvi böhran şəraitində biz gənclərin gələcək barədə təsəvvürləri də bədbin notlar üzərində köklənmişdi.

Keçmiş imperiya rəhbərliyinin Azərbaycan xalqına qarşı yeritdiyi siyasətin mahiyyətindəki bu ayrı-seçkiliyin, etinasızlığın, aşkar qərəzin nə ilə bağlı olduğunu özüm üçün aydınlaşdırmağa çalışır, dərin düşüncələrə dalırdım. Həmişə də bu qənaətə gəlirdim ki, təbii sərvətləri talanan, əhalisi yarımac vəziyyətdə yaşayan, sosial-mənəvi problemlər məngənəsində sıxılan respublikanın prinsipial, qətiyyətli və müasir ruhlu rəhbərə ehtiyacı var.

Şükürlər olsun ki, tale gec də olsa, bizə rəhbəri, milli xilaskarı bəxş etdi! 1969-cu il iyulun 14-də ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə xalqın taleyində tamamilə yeni səhifə açıldı. Bu tarixi hadisə, əslində, Azərbaycanın müasirləşməsi prosesinin başlanğıcına çevrildi. Yaxşı xatırlayıram, xalqın öndə gedən ziyalıları, qabaqcılları bu seçimə ürəkdən sevinirdi. Çünki Heydər Əliyevin yeni düşüncəli, prinsipial, qətiyyətli, müasir idarəçilik keyfiyyətlərinə malik rəhbər olduğu cəmiyyətdə çoxlarına bəlli idi. Ulu öndər hələ dövlət təhlükəsizlik orqanlarında çalışdığı və yüksək rəhbər vəzifələrdə təmsil olunduğu illərdə milli ideallara bağlılığını tam sübuta yetirmişdi. Zəmanəsinin adlı-sanlı "çekist"ləri xatirələrində qeyd edirlər ki, Heydər Əliyev yüksək professionallığı, peşəsinə vurğunluğu, sadəliyi, müasirliyi ilə bütün rəhbər və sıravi əməliyyat heyətinin rəğbətini qazanmışdı. Əməliyyat tədbirlərini müasir metodlar əsasında aparması uğurlarına ciddi təminat idi. Heydər Əliyev DTK rəhbərliyində olarkən, hər cür riskə rəğmən, milli ruhlu ziyalıları da qorumağa çalışırdı.

Düşünürəm ki, rəhbər vəzifələrdə çalışdığı zamanlarda Heydər Əliyevin qazandığı möhtəşəm uğurların əsasında bir mühüm amil dayanırdı: müasirlik və yenilikçilik! Ulu öndər Heydər Əliyevin rəhbər kimi novatorluğu onun şəxsi xarakterindən irəli gəlirdi. Daim yeniliyə can atan, idarəçiliyə yeni ruh, yeni nəfəs gətirən böyük strateq 1969-1982-ci illərdə reallığın imkan verdiyindən də yüksək dərəcədə xalqının mənafeyi üçün çalışdı. Müdrik rəhbərin yenilikçi düşüncə tərzi Azərbaycanın o dövrdə ictimai həyatın bütün sahələri üzrə müasirləşməsində mühüm rol oynadı.

Ümummilli lider Heydər Əliyev düşüncədə təkmil müasirliyi, mənəviyyatda kamil mühafizəkarlığı təlqin edirdi. Xalqın milli xüsusiyyətlərinin, özünəməxsusluğunun saxlanılması və gələcək nəsillərə çatdırılması məsələsində nə qədər mühafizəkar idisə, elmi-texniki tərəqqiyə, inkişafa, sosial-mədəni yüksəlişə xidmət edən proqram və konsepsiyaların həyata keçirilməsində, informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqində bir o qədər yenilikçi, islahatçı, novator idi. Ulu öndərin lider kimi yenilikçilik, təşəbbüskarlıq keyfiyyətləri onun qurucu və yaradıcı, eyni zamanda, maarifpərvər şəxsiyyət olmasından irəli gəlirdi.

Məhz bu keyfiyyətləri sayəsində ulu öndər Heydər Əliyev hələ o illərdən Azərbaycanın iqtisadi müstəqilliyi üçün etibarlı zəmin hazırlamağa müvəffəq oldu. Respublika əhalisinin yaşayışını, məişətini, həyat tərzini müasir səviyyəyə qaldırmaq üçün ardıcıl tədbirlər həyata keçirdi. Bu məqsədlə rəhbərliyə gəldiyi ilk gündən iqtisadi geriliyə, bürokratik idarəçiliyə qarşı amansız mübarizəyə başladı. Cəmiyyətdə qanunçuluq, hüquq qaydaları bərpa olundu. Milis, prokurorluq və məhkəmə orqanlarında sağlam mühit təmin edildi. Paralel olaraq istehsal münasibətlərinə müasirlik gətirildi. İqtisadi inkişafa xidmət edən mühüm proqramlar hazırlandı, onların icrası təmin edildi.

Həmin dövrün şanlı quruculuq salnaməsinin şahidi kimi deyə bilərəm ki, 70-ci illərdə neft sənayesinin inkişafında ciddi yüksəliş hiss olunurdu. Müstəqil iqtisadiyyatın formalaşdırılması yolunda ən mühüm addımlardan biri də Azərbaycanda kifayət qədər yeni və güclü sənaye sahələrinin yaradılması oldu. Sənayenin inkişaf səviyyəsinə görə respublikanın bütün bölgələrinin bərabərtərəfli inkişafı yönümündə ardıcıl addımlar atıldı.

Ulu öndər iqtisadiyyatı yüksəltmək üçün rüşvətxorluğa, oğurluğa, əliəyriliyə və mənəviyyata zidd digər təzahürlərə qarşı amansız mübarizə aparırdı. Heydər Əliyev istehsal və satış obyektlərində olur, işində səhlənkarlığa, məsuliyyətsizliyə, qanundan kənar hallara yol verən məmurları sərt şəkildə cəzalandırırdı. Ulu öndər son dərəcə işgüzar olduğu kimi, həm də tələbkar rəhbər idi. Rayonlara təyin etdiyi rəhbər şəxslərdən ən ciddi və israrlı tələbi səylə işləmək, bütün sahələrdə inkişafa nail olmaq, insanları razı salmaq, müasir idarəçilik üsullarından bəhrələnmək idi. 70-ci illərdə tez-tez bölgələrdə olan ümummilli lider sadə zəhmət adamları ilə görüşür, onlarla söhbətləşirdi.

HAŞİYƏ: Vaxtilə Naxçıvan Muxtar Respublikasının rayon partiya komitələrinə və müxtəlif nazirliklərə rəhbərlik etmiş şəxs kimi xüsusi vurğulamaq istərdim ki, Heydər Əliyevin hələ 70-ci illərdə məmurlar qarşısındakı müəyyənləşdirdiyi ən ciddi tələb xalqa layiqli xidmət göstərmək, insanların inamını doğrultmaq idi. Yaxşı xatirimdədir, Heydər Əliyev müasir ruhlu rəhbər kimi hansısa ideoloji qəliblər, protokol normaları çərçivəsində hərəkət etmirdi. Culfada birinci katib kimi çalışdığım illərdə də bunun şahidi olmuşam. Respublika rəhbərinin Naxçıvana, o cümlədən Culfa rayonuna gəlişi ilə bağlı əvvəlcədən planlaşdırılmış protokol hərəkətləri kağız üzərində qalırdı. Ümummilli lider səfərini istədiyi kimi qurur, sadə insanlarla səmimi görüşür, söhbətləşirdi. Onların qayğı və istəkləri ilə maraqlanır, mövcud problem və çətinliklərin həlli üçün yerindəcə tapşırıqlarını verirdi. Ən müasir ünsiyyət vasitələrini seçirdi. Belə bir tələbkar və müasir idarəçilik üsullarına yiyələnmiş rəhbərlə işləmək həqiqətən də, böyük məsuliyyət, modern iş təcrübəsi və təşəbbüskarlıq tələb edirdi.

Ulu öndər o illərdə kəndlilərin, zəhmətkeş insanların hamisinə çevrildi. Respublikada müasir əkinçilik ənənələri formalaşdırıldı. Müdrik rəhbərin təşəbbüsü ilə kənd təsərrüfatının ayrı-ayrı sahələrinin inkişafı üçün qətiyyətli tədbirlər həyata keçirildi. Üzümçülük, pambıqçılıq, tütünçülük və digər sahələrdə məhsuldarlıq və keyfiyyət yüksəldi. Heydər Əliyev süfrələrə bərəkət gətirdi, kəndliyə halallığı, zəhmətə qatlaşmağı, əməksevərliyi öyrətdi. Əməkdə fərqlənən insanlar respublika rəhbərliyinin hərtərəfli diqqət və qayğısını daha qabarıq duydular. Onlar dövlət təltifləri ilə, maddi yardımlarla mükafatlandırıldılar. Kəndlərin inkişafı daha geniş miqyas aldı. Heydər Əliyevin birbaşa nəzarəti altında demək olar ki, hər bir kənddə sosial, mədəni və ictimai mənşəli infrastrukturların yaradılması kəndlinin həyat səviyyəsini yüksəltdi və onun müasir həyata daha sıx uyğunlaşmasını təmin etdi.

**Milli ruhu qoruyan rəhbər**

Müstəqil dövlətçiliyin qurulmasına aparan yol müstəqil düşüncədən başlayır. Müstəqil düşüncə isə müasirliyin və azadlığın vacib meyarlarından biridir. Böyük strateq Heydər Əliyev də müasir və müstəqil

düşüncəli rəhbər kimi Azərbaycana birinci rəhbərliyi dövründə ilk növbədə milli genetik ruhu qorudu. Milli təfəkkürün repressiyalara, təqiblərə məruz qalmasının qarşısını aldı. Əlbəttə, qırmızı imperiyanın "qılıncının hər iki üzünün kəsdiyi" bir dönəmdə müstəqil düşüncəli ziyalıları qorumaq, onları rejimin təhdidlərindən hifz etmək heç də asan məsələ deyildi. Bunu yalnız Heydər Əliyev kimi bütün varlığı ilə milli ideallara bağlı, vətənpərvər lider bacara bilərdi!

Ötən əsrin 70-ci illərində milli dövlətçilik və müstəqillik ideyaları ictimai düşüncədə daha sürətlə "boy atmağa başladı". Çünki Heydər Əliyevin yürütdüyü siyasət dolayısı ilə xalqda milli özünüdərki və ruhu yüksəldirdi. İnsanların milli adət-ənənələrə bağlılığını gücləndirirdi. Ulu öndərin milli özünüdərk prosesinin güclənməsi istiqamətində gördüyü işlər çoxşaxəli olduğu qədər də saysız-hesabsızdır: hakim ideologiya ilə uzlaşmayan "Gülüstan" poemasının müəllifi mərhum şairimiz Bəxtiyar Vahabzadəni həbs olunmaq təhlükəsindən qoruyan da; Bakıda Nəriman Nərimanovun abidəsini ucaltmaq üçün iki ilə yaxın mübarizə aparan da; dahi dramaturq Hüseyn Cavidin nəşini uzaq Sibirdən Azərbaycana gətirmək üçün ən sərt maneələrə mərdliklə sinə gərən də məhz Heydər Əliyev dühası idi! Böyük sərkərdə xarizmatik liderlərə xas tərzdə lazımi anda qətiyyət, cəsarət və prinsipiallıq göstərməyi bacarırdı.

Ulu öndər Heydər Əliyev Azərbaycanı hansısa mərhələdə milli müstəqilliyə qovuşdurmaq üçün xalqın zəngin milli-mənəvi irsini, tarixini, mədəniyyətini, dilini, bir sözlə, özünəməxsusluğunu şərtləndirən dəyərləri qorumağa çalışırdı. Azərbaycan milli ideyasını dinamik tərzdə cəmiyyətin bütün təbəqələrinə ötürürdü. Məhz ötən əsrin 70-ci illərində Azərbaycan tarixi ilə bağlı obyektiv tədqiqat əsərlərinin yazılmasına başlanılmışdı. Eləcə də inadkar səyləri ilə Azərbaycan SSR-in 1978-ci il tarixli Konstitusiyasında Azərbaycan dilinin rəsmi dövlət kimi təsbit edilməsinə nail oldu. O dövrdə Bakıda türkçülüyü tədqiq edən sanballı "Türkologiya" jurnalının nəşrə başlaması böyük əzmin, fədakarlığın, dönməzliyin nəticəsi idi!

Vətənpərvər rəhbər çox qısa zamanda cəmiyyəti bütün sahələr üzrə mənəvi yüksəlişə ruhlandırmağı, ona qol-qanad verməyi bacardı. İmzalar içində bizim də dəst-xəttimiz, nişanımız göründü. Nizami, Füzuli, Nəsimi, Vaqif, Cəfər Cabbarlı, Səməd Vurğun, Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov və digər dühaların əsərləri sovet sərhədlərini aşaraq dünya arenasına çıxırdı. Azərbaycanın ədəbiyyatına, mədəniyyətinə, musiqisinə diqqət artırdı. Çox-çox sonralar başa düşəcəkdik ki, bütün bunlar sadəcə, Azərbaycanın milli-mənəvi dəyərlərinin təbliği deyilmiş. Bunlar həm də Azərbaycan milli-mənəvi dəyərlərinin qüdrəti ilə sovet imperiyasının vahid dil, vahid millət kimi amorf siyasəti qarşında qurulan mənəvi sədd imiş.

Milli ruhu və özünüdərki gücləndirən, müasir düşüncəyə yol açan addımlardan biri də milli mədəniyyətə qayğı siyasəti idi. Məhz həmin illərdə Azərbaycanın kino sənəti sürətlə inkişaf etdi, milli qəhrəmanlıq ruhunda filmlər çəkildi. Eyni zamanda, teatrlarda insanlarda milli özgürlüyü gücləndirən yeni-yeni əsərlər səhnəyə qoyuldu. Heydər Əliyev müasir düşüncəli rəhbər kimi özü də bu qəbildən olan bədii-kütləvi tədbirlərdə şəxsən iştirak edir, bunu digər məmurlara da təlqin etməyə çalışırdı.

HAŞİYƏ: Ulu öndər insanlarda klassik musiqi incilərinə marağı gücləndirmək üçün bəzən sərt addımlara da əl atırdı. Daha dəqiqi, məmurlarda yüksək musiqi zövqü formalaşdırmaq üçün onların hətta simfonik konsertlərə gəlməsini administrativ formada təmin edirdi. Bu xoşməramlı addım əsla, kiminsə hüquqlarının pozulmasına yönəlməmişdi. Sadəcə olaraq, ulu öndər insanlarda vətəndaş zövqünün formalaşmasına, cəmiyyətin musiqi duyumunun püxtələşməsinə çalışırdı. O dövrdə simfonik musiqiyə candərdi qulaq asan Azərbaycan insanı 40 ildən sonra - bizim günlərdə onu böyük həvəslə dinləyir.

Ulu öndərin adını layiqincə daşıyan Heydər Əliyev Fondunun təşəbbüsü ilə Qəbələ rayonunda son iki ildə təşkil olunan musiqi festivalları deyilənləri bir daha təsdiqləyir. Bu rayondan Milli Məclisə seçilən deputat kimi sadə insanların dünya şöhrətli musiqiçilərin iştirak etdiyi festivallara hədsiz marağının şahidi oldum. Onların arasında müxtəlif peşələrdə çalışmalarına baxmayaraq musiqi zövqü yüksək olan insanların mövcudluğu yaxşı mənada təəccübümə səbəb oldu. Onu da bildirim ki, Azərbaycan insanının incəsənətə, klassik musiqiyə həssas münasibəti mədəni-intellektual səviyyənin göstəricisi kimi əcnəbi qonaqlarda da xoş hisslər doğururdu.

Ulu öndər Heydər Əliyev kosmopolit ideyaların təbliğ olunduğu bir dönəmdə əxlaqda mühafizəkarlığı əsas tutaraq bunu dövlət siyasətinə çevirməyə çalışırdı. Dahi rəhbər hesab edirdi ki, düşüncə müasirliyi xalqın tarixən formalaşmış milli-mənəvi dəyərlər sisteminə təhlükə yaratmamalıdır. Yəni, tarixən formalaşmış mental dəyərlər, adət-ənənələr, rituallar qorunub saxlanılmalıdır. Həmin illərdə rəsmi səviyyədə ateizmin təbliğ olunmasına rəğmən, Azərbaycanda islam dininin yayılmasına, insanların etiqad azadlığına heç bir məhdudiyyət yox idi. Bundan başqa, ilk dəfə olaraq məhz Heydər Əliyevin təşəbbüsü ilə Novruz bayramı həmin dövrdə Azərbaycanda rəsmi səviyyədə qeyd olunmuşdu.

Tarixin böyük sınaqları ilə üzləşən Azərbaycan xalqı ötən əsrin sonlarına doğru məhz 70-80-ci illərdə formalaşmış möhkəm iqtisadi təməl üzərində dövlət müstəqilliyini bərpa etdi. Fəqət, müstəqilliyin ilk illərində

yaşanan sarsıntılar xalqa böyük acılar gətirdi. Respublikada 1991-ci ildən 1993-cü ilin iyununadək hökm sürən xoşagəlməz durumu bu gün hər bir azərbaycanlı ürək ağrısı ilə xatırlayır.

1993-cü ilin iyununda - kifayət qədər mürəkkəb bir mərhələdə xalqın səsinə səs verən, məsuliyyəti üzərinə götürməkdən çəkinməyən lider yenə də Heydər Əliyev oldu! Ulu öndər Azərbaycan rəhbərliyinə sanki yeni ruh, nəfəs kimi qayıtdı. Dövləti parçalanmadan, xalqı vətəndaş müharibəsindən qurtardı. İctimai-siyasi sabitliyi, qanunçuluğu bərpa etdi. İqtisadi sahədə yeni dövrün tələbinə uyğun islahatların həyata keçirilməsinə başlanıldı. Ölkədə azad bazar iqtisadiyyatı prinsipləri sürətlə bərqərar oldu. Ölkəmizin yerli xüsusiyyətlərini, təbii sərvətlərini, coğrafi şəraitini nəzərə alan Heydər Əliyev Azərbaycanın müasir milli inkişaf strategiyasını irəli sürdü. Yeni neft strategiyasını uğurla gerçəkləşdirdi, "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu. Azərbaycana xarici investisiyaların cəlb edilməsi üçün geniş təşviqat apardı. Neft-qaz sənayesinin modern texnologiya ilə yenidən qurulmasını təmin etdi. Özəlləşdirmə prosesini uğurla başa çatdırdı. Torpağı əsl sahibinə - kəndliyə qaytardı. İş adamlarının fəaliyyəti üçün geniş imkanlar açdı. Müasirləşməyə xidmət edən siyasətin digər sahələrdə də uğurla davam etdirilməsi 1997-ci ildən pozitiv nəticələrə yol açmağa başladı.

Heydər Əliyev siyasi kursu Azərbaycanı davamlı iqtisadi inkişaf yoluna çıxarmaqla yanaşı, cəmiyyətin bütövlüyünü, həmrəyliyini təmin etdi. Ötən əsrin 90-cı illərinin əvvəllərində qütblərə bölünmüş cəmiyyətin monolitliyi bərpa olundu. Ulu öndər özünəməxsus uzaqgörənliklə azərbaycançılığın tarixən formalaşmış komponentlərini sistem halına salaraq onu milli ideologiya şəklində xalqa təqdim etdi. Dövlətçilik, vətənçilik, müasirlik kimi dəyərləri özündə birləşdirən bu mükəmməl ideologiya xaricdə yaşayan soydaşlarımız üçün də istinad mənbəyinə çevrildi. Onların vahid ideologiya, məqsəd və məram ətrafında diaspor təşkilatları yaratmasına, təşkilatlanmasına səbəb oldu.

Ulu öndər Heydər Əliyevin müstəqillik illərində milli mədəniyyətə, incəsənətə, ədəbiyyata, ana dili məsələlərinə xüsusi qayğı ilə yanaşması da onun müasirləşmə strategiyasının mahiyyətindən irəli gəlirdi. Sovet Azərbaycanına rəhbərliyi dövründə formalaşdırdığı mütərəqqi ənənəni davam etdirən dahi rəhbər görkəmli şair və yazıçıların, elm, incəsənət xadimlərinin yubileylərinin keçirilməsinə, ev-muzeylərinin yaradılmasına xüsusi qayğı ilə yanaşırdı. Bir sözlə, ümummilli lider Heydər Əliyev hələ ötən əsrin 70-ci illərində başladığı müasirləşmə siyasətini müstəqillik illərində də davam etdirdi. Sovet Azərbaycanını xaos və tənəzzüldən çıxaran, mədəni-mənəvi intibaha yönəldən bu siyasət müstəqil Azərbaycanın inkişafı üçün də möhkəm təmələ çevrildi. Cəmiyyəti yeni dövrün yaşam və düşüncə tərzini hazırlaya bildi.

Heydər Əliyev müasirləşməni Azərbaycan üçün alternativsiz inkişaf yoluna çevirdi!

**Yeni əsrin müasir lideri**

Ümummilli lider Heydər Əliyev bütün mənalı həyatı və şərəfli dövlətçilik fəaliyyəti müddətində yalnız Azərbaycanı düşündü, onun müasirləşməsinə, qüdrətlənməsinə, çiçəklənməsinə çalışdı. Dahi öndər Azərbaycanı daim gözəl və müasir görmək istəyirdi. Elə bu məramla da xalqın gələcək taleyinə biganə olmadı. Müasirləşmə siyasətini özündən sonra layiqincə davam etdirəcək modern düşüncəli, yüksək idarəetmə və təşkilatçılıq qabiliyyətinə malik novator ruhlu lider yetişdirdi.

Əgər Heydər Əliyevin müasirləşmə siyasəti ötən əsrin 70-ci illərində Azərbaycanı keçmiş SSRİ-nin ən qabaqcıl respublikasına gətirib çıxardısa, 90-cı illərdə xoas və tərəqqidən inkişafa doğru keçidin mükəmməl strategiyasını təmin etdisə, onun layiqli davamçısı cənab İlham Əliyevin yürütdüyü modernləşmə kursu respublikamızı bu gün dünyanın ən sürətlə inkişaf edən ölkəsinə çevirdi!

Başqa sözlə, ümummilli lider Heydər Əliyevin başladığı müasirləşmə kursu möhtərəm Prezident İlham Əliyevin modernləşmə siyasəti ilə inamla davam etdirilir!

İstənilən ideya cəmiyyət üçün o vaxt cəlbedici görünür ki, onun praktik tətbiq və reallaşdırılması imkanları olsun. İrəli sürülən məqsədlər, ideyalar nə qədər cəlbedici görünsə belə, bütün bunların real icra mexanizminə əsaslanmaması bəzən onların kağız üzərində qalması, müxtəlif təqdimatlar, müzakirələr səviyyəsindən kənara çıxmaması ilə nəticələnir. Cənab İlham Əliyevin dövlət rəhbəri olaraq irəli sürdüyü təklif və ideyalar, layihələr, bu mənada, tam reallığı əks etdirir. Ölkə başçısı indiyədək verdiyi bütün vədləri əməli işi ilə gerçəkləşdirib. Fikrimi əsaslandırmaq üçün aşağıdakı faktların üzərində dayanmaq istərdim:

- Prezident İlham Əliyev hələ 2003-cü ilin prezident seçkiləri ərəfəsində "Növbəti beşillikdə 600 min yeni iş yeri açılacağını" bəyan etmişdi. 2008-ci ilədək respublikada 700 mindən artıq iş yeri açıldı. İndi bu rəqəm 900 mini ötüb;
- Prezident İlham Əliyev səlahiyyətlərinin icrasına başladığı ilk dövrlərdən "Azərbaycanın hərbi xərcləri Ermənistanın dövlət büdcəsindən çox olmalıdır" demişdi. Dövlət başçısının bu vədi də praktik surətdə gerçəkləşib. Azərbaycanın hərbi büdcəsi bu gün işğalçı dövlətin ümumi büdcəsindən çoxdur.

- Prezident İlham Əliyev 2003-cü ilin prezident seçkiləri ərəfəsində "Azərbaycanda qısa müddətdə bütün çadır düşərgələrinin ləğv olunacağını" bildirmişdi. 2007-ci ilin dekabrında respublikada sonuncu çadır düşərgəsi ləğv olundu. Məcburi köçkünlərin mənzil şəraitinin və sosial rifah halının yüksəldilməsi tədbirləri bu gün də inamla davam etdirilir.

- Prezident İlham Əliyev 8 il öncə "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam" - demişdir. Ötən müddət ərzində bu vəd özünü əməli işdə tam doğrultdu. Bu gün İlham Əliyev hər bir azərbaycanlının inam və etimad ünvanı, güvənc və ümid yeri, layiqli rəhbəri, hamisi və mərhəmətli xeyirxahıdır. Bu kimi misalları istənilən qədər artırmaq olar.

İnkişaf və tərəqqinin yeganə qarantı olan bu kursun əsas prioritetini iqtisadi inkişaf və demokratikləşmə xəttinin paralel şəkildə gerçəkləşdirilməsi təşkil edir. Möhtərəm Prezident İlham Əliyev Azərbaycanı modern dövlətə çevirməyin yolunu məhz yüksək iqtisadi inkişafda, etibarlı sosial rifahda, liberal siyasi düşüncədə, qanunçuluğun bütün səviyyələrdə təminatında görür. Ötən 8 ilə yaxın müddətdə ölkədə uğurla keçirilən islahatlar da məhz müasirləşmə-modernləşmə strategiyasının bu məqsədlər naminə gerçəkləşdirilməsinə yönəlib. Eynən ulu öndər Heydər Əliyev kimi, möhtərəm Prezident İlham Əliyev də idarəçilikdə daim müasirliyə, yeniliyə can atır. Bunun əsasında isə Azərbaycanı Avropanın ən modern dövlətlərindən birinə çevirmək niyyəti dayanır.

Əslində, müasir dövlət quruculuğu mürəkkəb olduğu qədər də bir sıra sadə meyarların tətbiqinə əsaslanır. Bu meyarlar sırasında ictimai-siyasi sabitliyin, vətəndaş həmrəyliyinin, qanunçuluğun, hüquq qaydalarının bərqərar olmasını, insanların yüksək sosial rifah halının təminatını, sosial infrastrukturun bütün sahələr üzrə müasirləşdirilməsini qeyd etmək olar. Prezident İlham Əliyevin siyasəti də məhz bu meyarların respublikada mərhələli şəkildə gerçəkləşdirilməsinə yönəlib.

Cənab Prezidentin yüksək liderlik qətiyyəti nəticəsində 2003-cü və 2005-ci illərdə ölkədə müəyyən neqativ meyillərə rəğmən, ictimai-siyasi sabitlik qorunub saxlanıldı. Dövlətçiliyə qarşı yönəlmiş bütün təhdidlər aradan qaldırıldı. Xalqla iqtidar arasında mənəvi birlik, vəhdət gücləndirildi. Siyasi ziddiyyətlərin yumşaldılması, iqtidar-müxalifət münasibətlərinin xarakterində pozitiv dönüşə nail olunması istiqamətində humanist addımlar atıldı. İnsanların azad, şəffaf, ədalətli seçim hüququ tam təmin edildi. Cəmiyyətin çevik və işlək mexanizmlər əsasında idarə olunmasına imkan verən qanunvericilik sisteminin formalaşdırılması prosesi davamlı axar aldı. Vətəndaş cəmiyyəti təsisatları möhkəmləndirildi - qeyri-hökumət təşkilatlarına, mətbuata qayğı siyasəti dönməz xarakter aldı. Bir sözlə, bu gün uğurla reallaşdırılan modernləşmə strategiyasında hər bir vətəndaş özünün ictimai dəyərlər dərəcəsinə yüksəlmiş istək və arzularının dolğun ifadəsini tapır, özünü inkişaf prosesinin müşahidəçisi deyil, fəal iştirakçısı qismində görür.

Prezident İlham Əliyevin ötən illərdəki çoxşaxəli fəaliyyəti yalnız yüksək quruculuq, abadlıq, inkişaf, tərəqqi kimi anlayışlarla səciyyələnmir. Dövlət başçısı az müddətdə insan hüquq və azadlıqlarının təmini, ölkədə demokratik proseslərin dərinləşdirilməsi istiqamətində qətiyyətli addımlar atıb. Bununla da, demokratiyanın Azərbaycan xalqı üçün əsla yabançı idarəetmə forması olmadığını bütün dünyaya sübut edib. Demokratiya "hayqırtıları" ilə bizə təsir göstərmək istəyən qüvvələrə öz yerini göstərərək nümayiş etdirib ki, əsl demokratiya təkamül yolu ilə tədricən bərqərar olunur. Azərbaycan iqtisadi cəhətdən inkişaf etdikcə, ölkədə demokratik proseslər də dərinləşir, qanunçuluq möhkəmlənir. Yaşayış səviyyəsi, maddi rifah halı yüksələn insanlar demokratiyanın həqiqi mahiyyətini dərk etməyə başlayırlar.

Müasirləşmə-modernləşmə xətti iqtisadi və sosial sahələrdə özünü daha qabarıq göstərir. Bu gün nəinki paytaxt Bakı şəhəri, respublikanın bölgələri də sürətlə inkişaf edir, abadlaşır, müasirləşir. Müntəzəm olaraq respublikanın bölgələrinə səfər edən Milli Məclisin deputatı kimi bunu böyük qürur hissi ilə deyirəm. İnsanları narahat edən, nigarançılıq içində saxlayan, həlli çətin görünən problemlərin sürətlə aradan qaldırılmasını böyük ruh yüksəkliyi ilə qarşılayıram. İnsanların maddi rifah halının yüksəlməsinə, işgüzar fəallığının artmasına, torpağı əkib-becərməsinə və ondan fayda götürməsinə qəlbən, ruhən sevinirəm.

Bölgələri tanımaq olmur. Ən ucqar rayonda da tikinti-quruculuq işləri müasir inşaat meyarları əsasında aparılır. Yüksək zövqlə həyata keçirilən abadlıq-quruculuq işləri zahiri görüntüyə hesablanan, kampaniya xarakteri daşıyan tədbirlərdən kəmiyyət və keyfiyyətcə fərqlənir. İnfrastrukturun müasirləşdirilməsi tədbirlərinin zövqlə aparılması üçün cənab İlham Əliyev icra hakimiyyəti strukturlarının başçılarının xarici ölkələrə ezam olunmasını mütərəqqi ənənəyə çevirib. Şəhərsalma ilə bağlı inkişaf etmiş ölkələrin təcrübəsini, iş, üsul və vasitələrini öyrənmək və tətbiq etmək, əlbəttə ki, müsbət nəticələrini verir. Müasir inşaat tələbləri əsasında aparılan quruculuq-abadlıq işləri rayonlara, qəsəbələrə şəhər siması gətirir. Əyalət insanlarının ümumi mənəvi-psixoloji ovqatı, gələcəyə inam hissi yüksəlir. Mövcud uğurlar insanlarda gələcək barədə yalnız nikbin təəssürat və daxili əminlik doğurur.

HAŞİYƏ: Ulu öndər Heydər Əliyev hələ 90-cı illərin sonlarında Qəbələ rayonunda olarkən "Bura Azərbaycanın İsveçrəsi olmalıdır" demişdi. Şübhəsiz, ümummilli lider bu fikri söyləyərkən Qəbələnin abad, müasir şəhər və gözəl turizm məkanına çevrilməsi vacibliyini önə çəkmişdi. Bu gün deputatı olduğum Qəbələ rayonunda həyata keçirilən möhtəşəm abablıq-quruculuq işlərini sözün qüdrəti ilə tam və dolğun, həm də yığcam şəkildə canlandırmaq çətindir! Sadəcə deyə bilərik ki, dahi rəhbərin arzusu tam gerçəkləşib! Bu gün içveçrəlilər özləri də Qəbələdəki abadlığı, gözəlliyi, müasirliyi heyrətlə qarşılayırlar. Şəhərin turizm infrastrukturu ildən-ilə müasirləşir. Müasir tipli hotellərlə yanaşı, təhsil, səhiyyə, mədəniyyət ocaqları tikilib istifadəyə verilir. İstehsal müəssisələri yaradılır, yeni iş yerləri açılır, yoxsuluq problemi tədricən aradan qalxır. İnsanların sosial rifah halı yüksəlir.

İndi Qəbələnin hansı kəndinə, yaşayış məntəqəsinə, küçəsinə baxırsansa, gördüyün mənzərə göz oxşayır, təmizliyi, estetik gözəlliyi, yüksək zövqü, rahatlığı ilə insanlara məmnunluq bəxş edir. Bir sözlə, Prezident İlham Əliyevin şəxsi nəzarəti, qayğısı və diqqəti nəticəsində Qəbələ rayonu bu gün Azərbaycanın bölgələrinin inkişaf və uğur rəmzinə çevrilib. Dövlət başçısı cənab İlham Əliyevin dediyi kimi, "Bu gün tək Qəbələ rayonunun timsalında Azərbaycanın dinamik inkişafını aydın görmək olar".

Cənab İlham Əliyev bu gün də müasir siyasətini uzun illər formalaşmış mükəmməl idarəçilik ənənələri çərçivəsində qurur. Öz fəaliyyət konsepsiyasını ulu öndər Heydər Əliyevin müəllifi olduğu dövlətçilik kursu üzərində formalaşdırır. Milləti Heydər Əliyev ideyaları ətrafında toparlayır. Özünü azərbaycanlı sayan və bu mənsubiyyətdən qürur duyan hər kəsi ulu öndərin yarımçıq qalmış arzularının, ideyalarının həyata keçirilməsi istiqamətində səfərbər edir. Bu gün hər bir azərbaycanlı dərk edir ki, Heydər Əliyev ideyaları, irsi yaşayır. Və bu gün bizi uzun illər xəyallarımızda yaşatdığımız, indi isə aydın gördüyümüz demokratik, qüdrətli Azərbaycanın daha da qüdrətlənməsi üçün Prezident İlham Əliyevin liderliyi altında yeni məsul vəzifələr gözləyir.

Əlbəttə, möhtərəm Prezident İlham Əliyevin dövlət başçısı olaraq bu və digər uğurlarının səbəbi heç də təkcə onun öz fəaliyyətini bünövrəsi Heydər Əliyev tərəfindən qoyulmuş möhkəm inkişaf zəmini üzərində qurması ilə məhdudlaşmır. Burada ikinci mühüm amil cənab İlham Əliyevin siyasi lider kimi yeni iqtisadi və ictimai münasibətlər sisteminə dərindən bələd olmasıdır. Dövlət başçısı yeni dövrün idarəçilik xüsusiyyətlərini komandasına da təlqin edir. Ən müasir texnologiyaları tətbiq etməklə, modern idarəetmə sistemi yaratmaq, hər bir məsələdə insan amilini əsas tutmaq bu siyasətin başlıca qayəsini təşkil edir. Modernləşmə xəttini əsas tutan bu siyasət həm də Azərbaycanın MDB-də ilk olaraq iqtisadi sahədə keçid dövrünü başa vurmasına imkan verdi.

Müasir dünyanın insanı kifayət qədər realist və praqmatikdir. Həyata keçməyən ideyalarla, şüarlarla onun diqqətini uzun müddət hansısa məsələyə cəlb etmək, düşüncəsini, fəaliyyətini yönəltmək mümkün deyildir. Bu mənada, ən əhəmiyyətli ideyaları da sadəcə müzakirələr səviyyəsində saxlamaqla qısa müddətdə gözdən salmaq olar. Çünki insanları sözdən daha çox real iş və nəticə maraqlandırır. Azərbaycan insanında gələcəklə bağlı daxili bir əminlik var. Bu əminlik həm də cənab İlham Əliyev şəxsiyyətinə olan yüksək ictimai inamdan, rəğbətdən qaynaqlanır.

...Xoş duyğu və düşüncələrdən ayrılıb təyyarədən enir, paytaxta doğru üz tuturam. Yol boyunca müşahidə etdiyim müasir inrastruktur layihələri - möhtəşəm körpülər, geniş, işıqlı prospektlər, müasir yol qovşaqları, abad xiyaban və parklar ovqatımı daha da yüksəldir.

Və ulu öndər Heydər Əliyevin işıqlı xatirəsini qəlbimdə böyük ehtiramla yad edirəm: "Siz, daim müasirlik hissi ilə yaşadınız-yaratdınız, müasir dövlət qurdunuz, müasir cəmiyyət formalaşdırdınız, müasir vətəndaş yetişdirdiniz. Azərbaycanın əbədi inkişaf yolu kimi müasirlik xəttini müəyyənləşdirdiniz. Bugünkü müasir Azərbaycan da məhz Sizin - əbədiyaşar rəhbərimizin fədakar fəaliyyətinin, gərgin zəhmətinin, böyük əziyyətlərinin məntiqi nəticəsidir".

Bəli, Azərbaycan qüdrətləndikcə, yüksəldikcə, daha böyük müvəffəqiyyətlərə nail olduqca, Heydər Əliyevin də müasirliklə bağlı arzuları, xoş niyyətləri hasilə yetəcək, gerçəyə çevriləcək!

Əminik ki, Heydər Əliyevin şah əsəri olan müasir Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında daha böyük zirvələri fəth edəcək!..

“**Azərbaycan**”.-2011.-13 may.-N 102.-S.4.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TARİXİ

**Qafar CƏBİYEV,**
Milli Televiziya və Radio Şurasının üzvü,
tarix elmləri doktoru

**Söhbət ulu öndərin Azərbaycan tarixi və tarixşünaslığına dair milli konsepsiyanın formalaşması sahəsində xidmətlərindən gedir**

**Tarixi olduğu kimi yazmaq lazımdır.**
***Heydər ƏLİYEV***
***Ümummilli lider***

Bu günlər xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 88-ci ildönümü münasibəti ilə Azərbaycanın, demək olar ki, hər yerində - ayrı-ayrı müəssisələrdə, əmək kollektivlərində, elm və təhsil ocaqlarında təntənəli yubiley tədbirləri keçirilmişdir. Bizim üçün çox xoşdur ki, bu cür yubiley tədbirləri dünyanın bir sıra ölkələrində, xüsusən də, azərbaycanlıların kompakt yaşadığı yerlərdə də keçirildi. Biz fəxr edə bilərik ki, Heydər Əliyevin adı və xidmətləri təkcə onun doğum, yaxud da anım günlərində deyil, hər yerdə və həmişə hörmət və ehtiramla yad edilir. Heydər Əliyevin adı və xidmətləri azərbaycanlılarla yanaşı, dünyanın bir çox digər xalqları, ulu öndəri özünə müəllim bilən, dost hesab edən, onun iş təcrübəsindən, məsləhət və tövsiyələrindən faydalanan bütün insanlar tərəfindən də hörmət və ehtiramla yad edilir.

Heydər Əliyevin həyatı , fəaliyyəti və onun xidmətləri haqqında çox deyilib, çox yazılıb. Müasir dünyanın ən mötəbər siyasətçiləri, nüfuzlu dövlət xadimləri, onu yaxından tanıyan çox məşhur elm və sənət adamları Heydər Əliyev fenomenini ən müxtəlif rakuslardan səciyələndirərək bu dahi şəxsiyyətin örnək ola biləcək keyfiyyətləri barədə mülahizə və fikirlərini bildirmişlər. Bu mülahizə və fikirlər elə indinin özündə xalq arasında ulu öndərlə bağlı müdrik kəlamlar kimi yayılaraq məşhurlaşmışdır.

Heydər Əliyevin əməli fəaliyyətinin ayrı-ayrı aspektləri, o cümlədən onun konkret elm sahələri ilə bağlı fəaliyyəti, düşüncə və tövsiyələri, bütövlükdə ulu öndərin elmə və elm adamlarına münasibəti xüsusi araşdırma tələb edən kifayət qədər geniş bir tədqiqat mövzusudur. Son vaxtlar ayrı-ayrı elm sahələrini təmsil edən çox görkəmli alimlərin bu istiqamətdə aparmış olduğu elmi araşdırmaların nəticəsi olaraq neçə-neçə sanballı tədqiqat əsəri, monoqrafiya və məqalələr işıq üzü görüb.

Heydər Əliyev əksər elm sahələrini kifayət qədər yaxşı bilirdi. Məruzə və çıxışlarından, ayrı-ayrı elm adamları ilə görüş və söhbətlərindən onun humanitar elmləri xüsusilə yaxşı bildiyi dərhal nəzəri cəlb edirdi. Bu, əlbəttə, hər şeydən öncə, ulu öndərin iti təfəkkürə, möhkəm məntiqə , fenomenal yaddaşa, geniş və zəngin dünyagörüşünə malik olduğundan, ən nəhayət, onun yorulmaq bilmədən mütaliə etdiyindən xəbər verirdi. O, ixtisasca tarixçi olduğundan, şübhəsiz, tarix elmini və onun problemlərini digər elmlərdən daha yaxşı və daha dərindən bilirdi.

Ulu öndərin tərcümeyi-halından bəlli olduğu kimi, onun əmək fəaliyyətinə başladığı ilk iş yeri Milli Azərbaycan Tarixi Muzeyi olub. O, 1940-cı ildə, 17 yaşında ikən Tarix Muzeyində təşkil olunmuş "Sovet Azərbaycanının 20 illiyi" sərgisində bələdçi vəzifəsində çalışıb.

Müharibə dövrünün çətinlikləri ucbatından Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində təhsilini yarımçıq dayandırmalı olub. Müharibə başa çatandan sonra isə Bakı Dövlət Universitetinin tarix fakültəsinə daxil olub və 1957-ci ildə təhsilini müvəffəqiyyətlə başa vurub. O, Dövlət Təhlükəsizliyi orqanlarında çalışarkən, daha sonra isə respublika partiya təşkilatına rəhbərlik edərkən Azərbaycan tarixinin problemlərinə və Azərbaycanda tarix elminin durumuna daha dərindən bələd olub. Fikrimi əsaslandırmaq üçün ulu öndərin tarix və memarlıq abidələrinə, onların mühafizəsinə, tədqiqinə, konservasiyyasına və təbliğinə diqqət və qayğısından xəbər verən bir neçə konkret fakt üzərində dayanmaq istərdim. Məsələn, Heydər Əliyev 1969-cu ildə respublika rəhbərliyinə gələrkən ilkin olaraq gördüyü tədbirlərdən biri Azərbaycan ərazisindəki tarix və memarlıq abidələrinin uçotunun dəqiqləşdirilməsi və onların yenidən qeydiyyata alınması işi oldu. Bu məqsədlə bölgələrə akademiyanın alimləri və Mədəniyyət Nazirliyinin əməkdaşlarından ibarət işçi qrupları göndərildi. Nəticədə əvvəllər dövlət qeydiyyatında olmayan bir çox yeni abidə aşkar edilərək qeydiyyata alındı. O da müəyən olundu ki, əvvəllər dövlət qeydiyyatına alınmış bəzi abidələr ötən əsrin 50-60-cı illərində müəmmalı şəkildə yoxa çıxıb. Bəzi abidələrin üzərindəki kitabələrin qoparıldığı , yazılarının məhv olunduğu, yaxud da onlara məqsədli şəkildə bu və ya digər saxta əlavələr edildiyi üzə çıxdı. Sən demə biz erməniləri özümüzə dost və qardaş bilərək süfrəmizin başında oturdanda onlar da bizim sadəlövhlüyümüzdən sui-istifadə edərək Azərbaycana məxsus

tarixi-mədəni dəyərləri oğurlayıb Ermənistana aparmış, yaxud da onları sındırıb məhv etmək, beləliklə də özlərinə saxta tarix yaratmaqla məşğul olublar.

Təbiidir ki, ulu öndərin rəhbərliyi ilə həyata keçirilən tədbirlər sayəsində, bir tərəfdən, ermənilərin iç üzü açıldı, digər tərəfdən isə, xalqımıza məxsus tarix və memarlıq abidələrinin mühafizəsinə və təbliğinə münasibət dəyişdi. Ulu öndərin tarixi-mədəni irsə münasibəti ilə bağlı daha bir prinsipial və ibrətamiz məqamı da yada salmaq istərdim. Uzun illər Tarix İnstitutunun direktoru işləmiş mərhum akademik İqrar Əliyevin "Elm" qəzetinin 10 may 2002-ci il tarixli sayında dərc olunmuş xatirələrində oxuyuruq: "1977-ci ilin sonları idi. Eşitdik ki, hərbçilər RLS-ə işıq çəkmək bəhanəsi ilə Qəbələni dağıdırlar. Mən dərhal Ali Sovetin Rəyasət Heyətinin sədri Qurban Xəlilovla telefon əlaqəsi yaradaraq vəziyyəti ona izah etdim. O da öz növbəsində bu barədə təcili olaraq Heydər Əliyevə məruzə edəcəyini bildirdi.

Ertəsi gün məni Mərkəzi Komitəyə çağırdılar və Heydər Əliyevin qəbulunda oldum. O, sona qədər məni çox diqqətlə dinlədi. Sözümü qurtaranda o, Moskvaya, keçmiş SSRİ Müdafiə Nazirliyinin yüksək rütbəli marşallarından birinə zəng etdi. O, marşala olduqca sərt və acı sözlər dedi və mən Heydər Əliyevin öz Vətəninə, tarix və mədəniyyətimizə nə qədər dərindən bağlı olan mərd bir şəxsiyyət olduğunu gördüm.

Bir gün sonra Q. Xəlilovun sədrliyi ilə Dövlət Komissiyası Qəbələyə yola düşdü. Vəziyyət doğrudan da çox acınacaqlı idi. Orada bizə məlum oldu ki, sən demə, Qəbələ RLS layihə institutlarının birində işləyən milliyətcə erməni qadın tərəfindən layihələşdirilibmiş və Azərbaycanın qədim paytaxt şəhəri olan Qəbələnin üzərində tikilməli imiş.

Bir neçə gündən sonra Qəbələ məsələsi MK-nin büro iclasının müzakirəsinə çıxarıldı. Heydər Əliyevin təklifi ilə tarixi-mədəni irsi dağıtmaq cəhdlərinə görə çox yüksək çinli hərbiçilərdən bir neçəsinə ağır partiya cəzası verildi. Olaya münasibətdə seyrici mövqe tutduqlqrına və prinsipsizlik etdiklərinə görə Akademiyanın və Qəbələ rayonunun bir neçə məsul işçisi də MK bürosu tərəfindən cəzalandırıldı. Aradan bir neçə gün keçəndən sonra isə məhz Heydər Əliyevin tapşırığı ilə Qəbələ şəhərinin ərazisi tarix və mədəniyyət qoruğu elan edildi. Orada çox genişmiqyaslı tədqiqat və bəndsalma işlərinə başlanıldı."

Gəlin etiraf edək ki, bu və ya digər rəhbər vəzifədə çalışan məmurlarımız zaman-zaman buna bənzər vandal hərəkətlərin yanından çox soyuqqanlıqla ötüb keçiblər. Beləliklə, elə özümüzün biganəliyimiz ucbatından tariximizə, mədəniyyətimizə sağalmaz yaralar vurulub.

Ulu öndərin keçmişimizin yadigarı olan tarix və mədəniyyət abidələrinə olan diqqət və qayğısını əks etdirən çoxsaylı misallar çəkə bilərəm. Onun İçəri- şəhərdə abidələrin konservasiyası və qorunması, Şirvanşahlar sarayı, Atəşgah, Möminəxatun türbəsi, Nizami Gəncəvinin məqbərəsi, Şabran şəhərinin arxeoloji tədqiqi ilə bağlı tarixi əhəmiyyətli sərəncam və göstərişləri, sözün tam mənasında, hər bir dövlət xadimi və hökumət rəsmisi üçün tarixi-mədəni irsə qayğıkeş münasibət nümunəsidir.

Ulu öndərlə təmasda olan tarixçi alimlərin də etiraf etdikləri kimi, Heydər Əliyev Azərbaycan tarixinin bütün dövrləri ilə maraqlanırdı və bu problemləri kifayət qədər yaxşı bilirdi. Təsadüfü deyildir ki, o, hər dəfə alimlərlə görüşündə çoxcildlik " Azərbaycan tarixi ", "Azərbaycan şəhərlərinin tarixi ", "Azərbaycan xalqının hərb tarixi", habelə Azərbaycanın görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətini əks etdirən fundamental əsərlərin yazılması zərurətini dönə-dönə xatırladırdı.

Məlum olduğu kimi, 1991-ci ilə qədər Azərbaycanda tarixi tədqiqatlar, SSRİ-nin digər respublikalarında olduğu kimi, marksist-leninçi metodologiya əsasında aparılmış və əsasən sosializm- kommunizm quruculuğu problemlərinin tədqiqinə istiqamətləndirilmişdir. Bu səbəbdən də tarixi tədqiqatlarda birtərəflilik hökm sürmüş, represiyalar və təzyiqlər ört-basdır edilmişdir. Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra isə tarix elmimizdə nihilizim, diletantçılıq meyilləri baş qaldırıb. 1920-ci il ildən 1991-ci ilə qədər olan dövr bir çoxları tərəfindən, demək olar ki, inkar edilib. Heydər Əliyev hər iki meylin əleyhinə idi. Ulu öndərin 1994-ci ildə Bakı Dövlət Universitetinin 75 illik yubileyindəki nitqi bu cəhətdən mövqelərə aydınlıq gətirdi: "Bəzi yeni siyasətçilər deyəndə ki, Nəriman Nərimanovdan başlanan və indiyə qədər, bizə qədər olan dövr tarix deyildir, mən dəhşətə gəldim. Belə ədalətsizliyə yol vermək olmaz. Bunu etmək istəyənlər tarixinə xor baxan, tarixinə düşmən çıxan adamlardır."

Heydər Əliyev tariximizin yazılmasında populizmə, diletantçılığa, nihilizmə yol verənlərə qarşı qəti mübarizə aparırdı. Onun Azərbaycan Respublikası gənclərinin birinci forumundakı nitqi bu cəhətdən bir növ proqram sənədidir. Görün, ulu öndər nəyi tövsiyə edirdi: "Tariximizin hər mərhələsi bizim üçün qiymətlidir: ən qədim dövr də, orta əsrlər də, sonrakı dövr də".

Ulu öndər XX əsrin Azərbaycan tarixində tutduğu yeri ümumi şəkildə belə qiymətləndirirdi: "XX əsrdə Azərbaycan xalqı bir sıçrayış dövrü keçib. Ən böyük nailiyyətlərimizdən biri odur ki, XX əsrdə ilk dəfə Azərbaycanda demokratik respublika yarandı. O, süqut etsə də, Azərbaycan xalqı öz inkişafında davam edib. Azərbaycanın Sovetlər İttifaqı tərkibində olduğu 70 illik dövr onun inkişaf dövrüdür. Bu dövrə qara yaxmaq

olmaz, bu dövrü qiymətləndirmək lazımdır. Bu dövrdə Azərbaycan xalqının elmi, təhsili, mədəniyyəti sürətlə inkişaf edibdir. Müstəqil Azərbaycanın təməli, özəyi, əsası həmin dövrdə yaranmış iqtisadiyyat, o dövrdə yaranmış elmi potensial, o dövrdə yaranmış mədəni potensialdır. Bunu biz qiymətləndirməliyik".

Ulu öndər uzun illər təhlükəsizlik orqanlarında rəhbər vəzifələrdə çalışdığından ayrı-ayrı tarixi dövrlərdə günahsız insanlara qarşı törədilmiş repressiyalarla bağlı tarixçilərdən daha artıq məlumatlı idi. Repressiya illərində xalqımızın başına gətirilən fəlakətlərlə bağlı bir neçə faktı diqqətinizə çatdırmaq istərdim. Məsələn, 1937-ci ildə Azərbaycanda 29 min nəfər "xalq düşməni" adı altında güllələnib, ya da Sibirə sürgün edilib. 1937-ci il dekabrın sonunadək yalnız Xəzər Dənizçiliyi İdarəsindən 200 nəfər rəhbər partiya işçisi, 19 gəmi kapitanı repressiyaya məruz qalmış, İsmayıllı rayonunun Kürdmaşı kəndinin bütün kolxozçuları, demək olar ki, kütləvi şəkildə həbs edilmiş və onlardan 63 nəfəri yeni ilə kimi güllələnmişdir.

Ulu öndərin təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününə həsr olunmuş təntənəli yığıncaqdakı nitqi repressiyalarla bağlı tariximizi doğru-dürüst öyrənmək baxımından çox gərəkli mənbə kimi dəyərləndirilməlidir: " Təhlükəsizlik orqanlarında işlədiyim vaxtlar mən bir işçi kimi arxiv materialları ilə, xüsusən, 37-38-ci illərin, ondan sonrakı dövrün materiallrı ilə tanış olarkən daim öz-özümə sual vermişəm: bu antisovet qruplar, Sovet hakimiyyətini devirmək istəyən qruplar, filanlar kimlərdir, hansılardır? Onların bir qismi həbs edilmiş, öldürülmüş, yaxud da uzaq Sibirdə həlak olmuşdur. Bir qismi isə həbs olunmamışdı... Bu faktlar nə qədər ədalətsizliklər, uydurmalar, quraşdırmalar, əsassız materiallar toplandığını sübut edir və bunlar tarixçilər tərəfindən dərindən öyrənilməlidir".

Ulu öndər Azərbaycan Respublikasının Konstitusiya layihəsini hazırlayan komissiyanın iclasında söylədiyi nitqində bir daha represiyalara toxunaraq demişdir: "1920-30-cı illərdə nə qədər repressiyalar olunub, insanlar öz yer-yurdundan sürgün ediliblər... Heç yerdə Azərbaycanda olduğu qədər adam sürgün edilməyibdir".

Sovet hakimiyyətinin ilk illərində, lap elə 30-40-cı illərdə Azərbaycanda milli tarixçi kadrlar, demək olar ki, yox dərəcəsində idi. Yalnız 50-60-cı illərdən başlayaraq milli tarixçi kadrların sıraları bir qədər genişləndi. Bütün bunlara görə də Heydər Əliyev Azərbaycan tarixinin yeni dövrün tələbləri səviyyəsində yazılmasına çox ciddi önəm verirdi. 21 sentyabr 1993-cü ildə Elmlər Akademiyasında ziyalılarla keçirdiyi görüşdə o, bu məsələ üzərinə bir daha qayıdaraq demişdir: "Tarixçilərimizin xatirində olmalıdır ki, mən Azərbaycanda işləyən dövrdə -70-ci illərdə və 80-ci illərin əvvəlində dəfələrlə onlara müraciət etmişdim ki, bizim tariximiz - həm qədim tariximiz, həm orta əsrlər tariximiz , həm də son dövrlərin, yəni XVIII, XIX, XX əsrlərin tarixi istənilən səviyyədə yazılmayıb".

Tariximizin ayrı-ayrı dövrlərinin yazılmasında birtərəfliliyə yol verilməsi, bir sıra hadisə və faktların məqsədli şəkildə təhrif olunması və bu kimi neqativ hallar Heydər Əliyevi daim düşündürür, narahat edirdi. Odur ki, ziyalılarla görüşündə ulu öndər bu məsələ üzərində xüsusi olaraq dayandı, özünün irad və tövsiyələrini bildirdi: "Ötən 70 illik dövrdə tariximiz təhrif edilmişdir. Həm XX əsrin, həm XIX əsrin, həm də ondan əvvəlki dövrlərin tarixi təhrif olunmuşdur. Demirəm ki, tamam təhrif edilmişdir, amma tarixə dair əsərlərimizdə təhrif ünsürləri var. İndi isə bir qütbdən o biri qütbə keçmək meyli görünür. O nədən ibarətdir? Ondan ibarətdir ki, deyirlər bütün bu 70 ildə olanların hamısı yaramazdır, pisdir, Azərbaycan xalqı üçün bəladır." Bu cür düşüncələrin əleyhinə olan dahi rəhbər tarixçilərə tövsiyə edərək bildirirdi ki, tariximizin bütün dövrləri bizim üçün əzizdir: " Ona görə də heç bir dövrü, heç bir şəxsi ideallaşdırmaq lazım deyildir. Təəssüf ki, bu ideallaşdırma xəstəliyi 70 ildir beynimizə girmişdir. Bundan xilas olmaq lazımdır. Əgər 70 il müddətində bütün ideoloji sistemimiz marksizm-leninizm elmini, onun prinsiplərini , Marksı, Lenini ideallaşdırmışdırsa, indi də ancaq Məmmədəmin Rəsulzadəni ideallaşdırırlar. Mən yenə də deyirəm: Məmmədəmin Rəsulzadə və onunla bərabər Azərbaycan Respublikasının böyük şəxsiyyətləri XX əsrin əvvəlində və xüsusən, 1918-ci ildə, Azərbaycan Demokratik Respublikası qurarkən böyük şücaət göstərmişlər, böyük iş görmüşlər. Bu şəksiz-şübhəsizdir. Ancaq gəlin, açıq danışaq : belə çıxır ki, tariximizdə Məmmədəmin Rəsulzadədən başqa heç kim yoxdur. Bəs Fətəlixan Xoyski, Nəsibbəy Yusifbəyov, Hacinski, Əlimərdanbəy Topçubaşov, Behbudbəy Şahtaxtinski və başqaları?! "

Heydər Əliyev zaman-zaman Azərbaycan xalqı içərisindən yetişən görkəmli şəxsiyyətləri, onların Vətən və xalq qarşısındakı xidmətlərini daim yüksək qiymətləndirirdi. Hakimiyyətdə olduğu illərdə ulu öndərin təqdimatı əsasında xalqımızın ən layiqli elm və sənət adamları yüksək adlara layiq görülüb, orden və medallarla təltif olunub. Elə bir klassikimiz , elə bir canlı korifeyimiz olmayıb ki, onların yubileyləri və ya ad günləri rəsmi səviyyədə, həm də böyük təntənə ilə qeyd olunmasın: "Bizdən ötrü Mirzə Fətəli Axundov da, Əhməd bəy Ağayev də, Məmmədəmin Rəsulzadə də böyük şəxsiyyətlərdir. Ancaq son zamanlar Nəriman Nərimanovdan başlayaraq bütün siyasi xadimlərin Azərbaycana düşmən olmaları barədə deyilən fikirlərlə heç cür razılaşmaq olmaz. Bunu deyən adamların Nəriman Nərimanov səviyyəsinə qalxmaları üçün bəlkə də on illərlə siyasi

fəaliyyət göstərmələri lazımdır... Bütün bunlarla mən öz fikrimi açıq demək istəyirəm: tarixi təhrif etmək olmaz. Tarixi təhrif edənlər xalqa xəyanət edir, onu çaşdırırlar. Buna son goymaq lazımdır".

Ümummilli liderin 31 yanvar 1997-ci il tarixdə Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə görüşdə səsləndirdiyi fikirlər, tarixçi alimlərə verdiyi tövsiyə və məsləhətlər Azərbaycan tarixi və tarixşünaslığının milli konsepsiyasının formalaşmasında çox mühüm və həlledici məqam kimi dəyədləndirilməlidir. Çünki ulu öndərin həmin çıxışında tarix elminin digər elmlər sırasında yeri, rolu və əhəmiyyəti, onun problemləri və inkişaf perspektivləri ilə bağlı konkret fikir və istiqamətlər öz əksini tapmışdır.

Heydər Əliyev tarixçi alimlərə heç vaxt göstəriş vermirdi. O, daha çox öz təkliflərini, məsləhət və tövsiyələrini bölüşürdü: " Mən bir məsələ barəsində konkret təklifimi bildirmək istəyirəm. Bu da Azərbaycanın tarixi ilə bağlıdır. Məlumdur ki, geniş kütlə, xalq, millət üçün ən çox təsirlisi humanitar elmlərdir və xüsusən millətin, xalqın... tarixidir. Bu indi bizim üçün xüsusi ilə lazımdır. Əlbəttə, müstəqil Azərbaycanda fizika, riyaziyyat, biologiya, kimya, yaxud başqa fənlərin hamısı inkişaf etməlidir. Bunların hərəsinin özünəməxsus çərçivəsi var. Amma tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq ömrünün sonuna qədər lazımdır. Ona görə də biz indi xalqımızın tarixinin yazılması işini gərək diqqət mərkəzinə alaq. 70-ci illərdə mən dəfələrlə Elmlər Akademiyası qarşısında vəzifə qoymuşdum ki, Azərbaycan tarixi yazılmalıdır. Amma... tarixçilərimiz bu vəzifəni yerinə yetirmədilər."

Ulu öndər bir çox tarixi məsələlərin yenidən, həm də yeni dövrün tələbləri səviyyəsində yazılmasını tövsiyə edirdi: "Azərbaycan tarixi yazılmalıdır... Alimlərimizin, tarixçilərimizin günahından yox, o vaxtkı ümumi ideologiyanın təsiri, yaxud da ideologiyanın tələbi ilə yazılan tarix də, şübhəsiz ki, indi bizi qane edə bilməz."

Heydər Əliyev müstəqillik dövrünün tələblərinə uyğun dərsliklər yazılması işinə də xüsusi önəm verirdi: " Məktəbə gedən gənc gərək Azərbaycan tarixini bilsin, oxusun, öyrənsin. Amma o, köhnə dərsliklərdən bunu öyrənə bilməz. Dərsliyi də hərə öz istədiyi kimi yazmamalıdır. Gərək bizim xalqımızın tarixi yazılsın. Orta və ali təhsil məktəbləri üçün tarix dərslikləri yazılsın."

Azərbaycan tarixinin yazılması işinin bəzi subyektiv səbəblər ucbatından ləngidilməsi Heydər Əliyevi çox narahat edirdi və akademiyadakı görüşdə o, bu narahatçılığını bir daha tam ciddiliyi ilə bəyan etdi: " İndi vəzifə ondan ibarətdir ki, Azərbaycanın tarixi yazılmalıdır. Mən bunu bir neçə dəfə demişəm. Ancaq təəssüflər olsun ki, mənim bu təkliflərim müqabilində Elmlər Akademiyası tərəfindən konkret bir təklif almamışam".

Ulu öndər XX əsrin tarixinin yazılmasına da xüsusi önəm verirdi: "XX əsrdə yaşadığımız ideologiyaya və onun konsepsiyasına görə bizim tariximiz təhrif olunmuşdur. Ona görə də mən çox çalışdım ki, biz XX əsrin tarixini yazaq. Çünki, tariximiz, bir tərəfdən, təhrif olunub, digər tərəfdən isə, bəziləri keçmişdə nə varsa, götürüb qəzetlərdə, kitablarda qaralamağa, pisləməyə başlayıblar. Vaxtilə hamımız gənc idik, o vaxtki, ideologiya bizə nə verirdisə, onu da qəbul edirdik. Biz Kommunist Partiyasının, Oktyabr İnqilabının tarixini, Azərbaycanda Sovet hakimiyyəti qurulmasının, 26 Bakı komissarının tarixini öyrənirdik. Bunun üçün indi günahkar axtarmaq düzgün deyil".

Heydər Əliyev böyük siyasətçi və dövlət xadimi olmaqla bərabər, həm də son dərəcə obyektiv və ədalətli bir insan idi. O, Sovet hakimiyyəti illərində Azərbaycan tarixinin yazılmasında yol verilən təhriflərə və birtərəfliliyə görə heç zaman tarixçi alimləri ittiham etməyib.

Akademiyadakı nitqində dahi rəhbər bir daha bu məqama toxunmuşdur: " Mən sizi günahlandırmıram. Çünki bizə qalmış miras o idi. Siz də, bizim o, yaşlı tarixçilərimiz də, 1970-ci illərdən fəallıq göstərən tarixçilərimiz də onlardan istifadə edirdilər. Ona görə də biz onların hamısını ideologiyanın konsepsiyasında bizə verilən kimi əks etdirirdik."

Heydər Əliyevi narahat edən o idi ki, tariximizin yazılmasında kommunist üsul-idarəsi dövründə yol verilən səhvlər bir qədər başqa formada müstəqilliyimizin ilk illərində də təkrar olunmaqda idi: "Kommunist ideologiyası vaxtında buraxılan səhvlər indi də təkrar edilir. Həmin səhvlər o vaxtlar bir istiqamətdə, indi başqa istiqamətdə buraxılır."

Problemin mahiyyətinə və anatomiyasına dərindən bələd olan ulu öndər akademiyadakı çıxışında onun aradan qaldırılması yolları ilə bağlı təklifini də bildirdi: "Mən bilirəm ki, indi tariximizin hamısını yazmaq çətindir. Bunun üçün illərlə vaxt lazımdır... Belə hesab edirəm ki, indi akademiyanın qarşısında duran vəzifələrdən biri Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yazılmasıdır. Bunun üçün mən bu gün konkret bir təklif vermək istəyirəm. Siz bir müəllif kollektivi yaradın və onun tərkibini mənə təqdim edin. XIX-XX əsrlər tarixinin yazılması üçün mən xüsusi vəsait ayıracağam. Bəli, mən Azərbaycanın XIX-XX əsrlər tarixinin yaranmasına qrant verirəm. Mən bunu dövlətin büdcəsindən ayırıram. Çünki bu, dövlət üçün ən vacib bir məsələdir."

Bütün bunlar onu deməyə əsas verir ki, xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycan tarix elminin inkişafı naminə ömrünü-gününü bütünlüklə bu elmə həsr etmiş hər hansı bir peşəkar tarixçi alimdən qat-qat artıq işlər görüb. Bu gün məmnunluq hissi ilə onu da qeyd eləmək istərdim ki, ulu öndərin Azərbaycan tarix elminin gələcəyi ilə bağlı narahatlığı, qayğı və düşüncələri, məsləhət və tövsiyələri nəticəsiz qalmadı. Son illər Azərbaycanın tarixçi alimləri tərəfindən tariximizin həm qədim, həm orta əsrlər, həm də XIX-XX əsrlər dövrünə aid yüksək peşəkarlıqla hazırlanaraq nəfis şəkildə çap olunan və bir sıra xarici dillərə tərcümə edilən çoxsaylı sanballı əsərlər Heydər Əliyev ideallarına sədaqətlə xidmət nümunəsi kimi dəyərləndirilə bilər. Ulu öndər Azərbaycan tarixçilərindən məhz belə əsərlər gözləyirdi.

Bir neçə gün bundan öncə Milli Elmlər Akademiyasında keçirdiyi görüş zamanı Prezident İlham Əliyev də Azərbaycan tarixçilərinin bu sahədəki işini çox yüksək dəyərləndirdi. Mən fürsətdən istifadə edərək tarixçi alimlərin işini belə yüksək dəyərləndirdiyinə görə möhtərəm Prezidentə öz dərin təşəkkürümü və minnətdarlığımı yetirmək istərdim.

Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizə tarixinin tədqiq olunmasında Heydər Əliyevin məruzə və çıxışları, bəyanat və məktubları çox qiymətli ilk mənbə kimi olduqca mühüm elmi əhəmiyyət kəsb edir. Ulu öndər tərəfindən, bir qayda olaraq, tarixi hadisələrin müfəssəl izahı və təhlili verilməklə səbəb və nəticələri ətraflı şəkildə təqdim olunur, hadisə və faktlara kifayət qədər obyektiv, həm də ədalətli elmi-tarixi və siyasi qiymət verilir. Bütün bunlar isə həm müasir, həm də gələcək tarixçilər nəsli üçün son dərəcə qiymətli hesab oluna biləcək elmi- metodoloji və siyasi əsasdır.

Heydər Əliyev Azərbaycan xalqının dünyaya bəxş etmiş olduğu ən böyük siyasətçi, ən nüfuzlu dövlət xadimi olmaqla yanaşı, həm də sözün əsl mənasında, qurucu və yaradıcı bir insan idi. O, Müstəqil Azərbaycanın həm memarı, həm də qurucusudur. Təsadüfi deyildir ki, tanınmış Amerika senatorlarından biri Heydər Əliyevi "Asiyanın Corc Vaşinqtonu" adlandırmışdır. Yəni, Corc Vaşinqton ABŞ dövlətini qurduğu kimi, Heydər Əliyev də müstəqil Azərbaycanı bizə ərməğan etmişdir.

Ulu öndərin söhbətlərində, məruzə və çıxışlarında tez-tez eşitdiyimiz belə bir kəlam var: "Dağıtmaq asan işdir, amma yaratmaq çox çətindir. Tarix də, insanlar da həmişə quranları, yaradanları qiymətləndirir". Heydər Əliyev də dünyanın tanıdığı, qəbul etdiyi quran, yaradan dövlət xadimlərinin ön cərgələrində duran böyük tarixi şəxsiyyət idi. Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun Heydər Əliyev kimi dünyanın ən tanınan siyasətçiləri və dövlət xadimləri sırasında xüsusi yeri olan rəhbəri, milli lideri olub. Azərbaycan xalqı bir də ona görə xoşbəxt xalqdır ki, Prezident İlham Əliyevin şəxsində dövlətimizin Heydər Əliyev tərəfindən müəyyən olunmuş daxili və xarici siyasət strategiyasını bu gün də uğurla davam etdirən, özünün qətiyyəti, intellekti, qabiliyyəti, enerjisi və ən nəhayət, peşəkar siyasətdəki yüksək səriştəsi ilə hamını və hər kəsi heyran edən yeni və gənc bir lideri var.

**"Xalq qəzeti".-**2011.-15 may.-N 104.-S.3.

# HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN QURUCUSU VƏ MEMARIDIR

**İsa ALIYEV,**
AMEA İqtisadiyyat İnstitutunun direktoru,
iqtisad elmləri doktoru, professor

**Aqil ƏSƏDOV,**
İqtisadiyyat İnstitutunun şöbə müdiri,
iqtisad elmləri namizədi

**Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını labüd fəlakətdən, hərc-mərclikdən xilas edən dahi rəhbər ölkənin iqtisadi yüksəlişi üçün təcili tədbirlər görməyə başladı. İttifaq səviyyəsində mövcud olan iqtisadi əlaqələr dağıldıqdan sonra milli iqtisadiyyatın dirçəldilməsi üçün ölkənin malik olduğu təbii resurslardan istifadə edilməsi və milli məhsulların xarici bazarlara çıxışının təmin edilməsi mühüm əhəmiyyət kəsb edirdi. Məhz belə bir dövrdə, Azərbaycanın zəngin neft ehtiyatlarının mövcudluğunu nəzərə alan ümummilli lider Heydər Əliyev, müasir dinamik inkişafımızın əsasını təşkil edən yeni neft strategiyasının hazırlanmasının və uğurla həyata keçirilməsinin təminatçısı oldu. "Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyildir. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir", deyən dahi Heydər Əliyev bu məqsədin reallaşması üçün lazım olan hər şeyi etdi və Azərbaycanı sürətlə inkişaf edən bir ölkəyə çevirdi.**

Hamımıza məlumdur ki, 20 sentyabr 1994-cü ildə Bakı şəhərində Xəzər dənizinin Azərbaycana aid sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə istismarı ilə bağlı neft hasilatı üzrə ixtisaslaşmış, yüksək nüfuza malik dünya dövlətlərini təmsil edən 12 iri neft şirkəti arasında beynəlxalq müqavilə imzalandı və bununla da Azərbaycanın yeni neft strategiyası uğurla həyata keçirilməyə başlandı. Bağlanmış müqavilələr Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi və 12 dekabr 1994-cü ildə qüvvəyə mindi.

Ölkəmizin iqtisadi inkişafında əvəzsiz rol oynayan və sonradan "Əsrin müqaviləsi" adlandırılan bu iri layihə üzrə ilkin neft 12 noyabr 1997-ci ildə hasil edildi. Təqribən 730 milyon ton neft və 200 milyard kubmetrə yaxın təbii qaz ehtiyatına malik olan yataqlarda görüləcək işlərə 12-14 milyard ABŞ dollarına yaxın investisiya qoyuluşu nəzərdə tutulurdu ki, bu da müstəqilliyini yenicə əldə etmiş Azərbaycan Respublikası üçün çox vacib məsələ idi. "Əsrin müqaviləsi" üzrə hasil edilən Azərbaycan neftinin dünya bazarlarına ixracı üçün ilkin dövrlərdə Bakı-Novorossiysk və Bakı-Supsa neft boru kəmərlərindən istifadə olunurdu. Lakin yaxın illərdə müqaviləyə daxil olan yataqlar üzrə illik hasilatın 50 milyon tona çatdırılacağını nəzərə alan ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə daha böyük nəqletmə imkanına malik ixrac marşrutları araşdırıldı və optimal variant kimi Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri seçildi. Məhz buna görə də layihənin həyata keçirilməsində fenomen siyasətçi Heydər Əliyevin əvəzsiz xidmətlərini nəzərə alan layihə iştirakçıları 2004-cü ildə BTC əsas ixrac boru kəmərinə Heydər Əliyevin adının verilməsi barədə qərar qəbul etdilər. Beləliklə, "Üç dənizin əfsanəsi" adlandırılan BTC layihəsi reallığa çevrilərək xalqımızın maddi rifah halının yaxşılaşdırılması və doğma Azərbaycanın qüdrətli dövlət olmasına öz töhfəsini verməkdədir.

Ümumilikdə neft strategiyası ilə sürət götürən inkişaf dinamikası sonrakı illərdə də daha genişmiqyaslı formada davam etdirildi. 1995-1998-ci illər əsasən müvafiq normativ hüquqi bazanın yaradılması ilə yadda qalsa da, bu dövrdə həm də dövlət mülkiyyətinin özəlləşdirilməsi, kiçik və orta sahibkarlığın dəstəklənməsi və s. istiqamətlərdə dövlət proqramları qəbul edilmişdir. Bazar iqtisadiyyatı şəraitində iqtisadi inkişafın əsas amilinin özəl mülkiyyət və sahibkarlığın müxtəlif formalarının təşəkkül tapması olduğunu çox düzgün qiymətləndirən dahi şəxsiyyət Heydər Əliyev ölkədə stabilliyə nail olunan kimi sahibkarlığın inkişaf etdirilməsinə xidmət edən qərarlar qəbul etdi. Bu sahədə görülən işlərin əsl mahiyyətini qiymətləndirmək üçün ümummilli lider Heydər Əliyevin hələ 1996-cı ildə söylədiyi bir fikri yada salmaq məqsədəuyğun olardı: "Bir Prezident kimi, mən iqtisadiyyatda dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara bərabərlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılması zəruridir. Bu, dövlət siyasətimizin əsas prinsipləri olur".

Məhz bu diqqət və qayğının nəticəsidir ki, ölkədə yerli sahibkarlıq fəaliyyəti ilbəil genişlənir, möhkəmlənir və dövlət büdcəsinin əsas gəlir mənbələrindən birinə çevrilir. Artıq başlıca məqsəd bu mühüm sahənin inkişafını genişləndirməklə ölkənin sosial-iqtisadi inkişafında əhəmiyyətini artırmaqdan ibarətdir. Bu məqsədə nail olmaq üçün dövlət başçısı möhtərəm Heydər Əliyev təkcə 2002-ci ilin avqust-sentyabr aylarında altı mühüm fərman imzalamışdır. Bu tarixi fərmanların qəbul edilməsi mahiyyət etibarı ilə, ilk növbədə ölkəmizin sosial-iqtisadi durumunun keyfiyyətcə yeni inkişaf mərhələsinə qalxmasında böyük potensiala malik milli sahibkarlığın qarşısında konkret vəzifələr qoyaraq onun həlledici rolunu daha da gücləndirdi. Məhz həmin dövrdə məqsədyönümlü formada həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, artıq sahibkarlıq iqtisadiyyatın aparıcı sahələrindən birinə çevrilərək istər məşğulluğun təmin olunması, istərsə də büdcə gəlirlərinin artırılması istiqamətində öz bəhrəsini verməkdədir.

Hazırda isə dövlətimizin sosial-iqtisadi inkişafı və digər istiqamətlərdə əldə edilən uğurlar Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev kimi dahi şəxsiyyətdən idarəetmə sahəsində zəngin təcrübə toplamış cənab İlham Əliyevin yüksək idarəçilik keyfiyyətləri ilə bağlıdır. Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında təbii-iqtisadi imkanlardan istifadə etməklə çox güclü və dayanıqlı bir iqtisadiyyat formalaşmışdır. İstər ümumi iqtisadi göstəricilərdə, istərsə də sənaye, kənd təsərrüfatı, sosial və s. sahələrə dair göstəricilərin dınamik formada dəyişməsi, ilbəil artması ölkəmizin iqtisadi qüdrətini və inkişaf tempini xarakterizə edir. Eyni zamanda, dünyada davam edən iqtisadi böhran nəticəsində ayrı-ayrı ölkələrin iqtisadi vəziyyətinin pisləşdiyini, ÜDM həcminin azaldığını, investisiya qoyuluşları və kreditlərin cəlb edilməsi imkanlarının məhdudlaşdığını, bir çox ölkələrin milli pul vahidlərinin devalvasiya edildiyini, işsizlik səviyyəsinin artdığını və bütün bunların Azərbaycanda ciddi formada hiss edilmədiyini nəzərə alsaq, ölkəmizin iqtisadi qüdrətini daha aydın təsəvvür etmək olar. Uzağa getmədən, MDB ölkələrinin timsalında iqtisadi böhranın ümumi mənzərəsi ilə tanışlıqdan aydın olur ki, bir çox qonşu respublikalarda iqtisadi vəziyyət kəskin pisləşmiş və 2009-cu ilin əvvəlindən həmin ölkələrin iqtisadi durumunu xarakterizə edən makroiqtisadi göstəricilər aşağı düşmüşdür. Konkret olaraq bu ölkələrdə ÜDM 9 faiz, sənaye istehsalı 14 faiz, o cümlədən, ölkələr üzrə, Rusiyada 14 faiz, Qazaxıstanda 1,5 faiz, Belarusda 4,6 faiz, Qırğızıstanda 12,7 faiz, Ukraynada 29,6 faiz və s. azalmışdır. Təsadüfi deyil ki, artıq öz iqtisadi inkişaf yolu olan, qlobal maliyyə böhranının təsirini minimum həddə endirməyi bacaran Azərbaycanın uğurları bütün dünyada diqqətlə izlənilir və ölkəmızin inkişaf tempini təmin edən şərtlər geniş təhlil olunur. Bunu son vaxtlar dünyanın aparıcı mətbu orqanlarında Azərbaycanın iqtisadi artımına dair dərc olunan yazılardan, beynəlxalq reytinq agentliklərinin ölkəmizə verdiyi qiymətlərdən də əyani görmək mümkündür. Bütün bu uğurlar isə cənab İlham Əliyevin dediyi kimi, Azərbaycana imkan verir ki, makroiqtisadi sabitliyi qoruyaq, ölkədə gedən bütün sosial proqramları, bütün infrastruktur layihələrini vaxtında icra edək.

Sevindirici haldır ki, ölkəmizdə 2011-ci ilin I rübündə də bu uğurlar davam etdirilmişdir. Belə ki, həyata keçirilən uğurlu daxili və xarici iqtisadi siyasət nəticəsində 2010-cu ildə ÜDM həcmi 41 milyard manatı ötmüşdür. Strateji valyuta ehtiyatları ilin əvvəli ilə müqayisədə 50 faiz artaraq 29 milyard dollara çatmışdır ki, bu da ölkənin dayanıqlı inkişafı üçün möhkəm zəmindir. 2010-cu il ərzində 51 milyon ton neft, 27 milyard kubmetr qaz hasil edilmiş, sənaye istehsalı 2,6 faiz artmışdır. Hökumətin iqtisadi siyasətində prioritet sahə olan qeyri-neft sektorunun dinamik inkişafı da 2010-cu ildə davam etmiş və bu sahədə real artım tempi ümumi artım tempini üstələyərək 7,6 faiz, o cümlədən, qeyri-neft sənayesində 6,6 faiz, rabitədə 29,7 faiz, nəqliyyatda yük daşınması 3,1 faiz artmışdır. Eyni zamanda, paralel olaraq, qeyri-neft sektorunda sənayeləşmə siyasəti davam etdirilmiş, yeni və müasir texnologiyalara əsaslanan elektrotexnika, əlvan metallurgiya, maşınqayırma, emal, tikinti materiallarının istehsalı da daxil olmaqla, il ərzində 60 sənaye müəssisəsi istifadəyə verilmişdir. O cümlədən, 80-dən çox sənaye müəssisəsinin tikintisi davam etdirilir ki, bu da gələcəkdə daha miqyaslı uğurlara imkan verəcəkdir.

Hər zaman olduğu kimi, 2010-cu ilin də prioritet məsələlərindən biri regionların sosial-iqtisadi inkişafı olmuşdur. İl ərzində 2009-2013-cü illəri əhatə edən regional inkişaf proqramı çərçivəsində 2010-cu il üçün müəyyənləşdirilmiş işlər uğurla başa çatdırılmışdır. Nəticədə ötən il 53 mini daimi olmaqla 70 mindən çox iş yeri açılmışdır. Ümumilikdə isə regional inkişaf proqramlarının icrasının başlanmasından, yəni 2004-cü ilin fevralından bu günə qədər ölkəmizdə 900 mindən artıq iş yeri açılmışdır ki, bu da işsizliyin aradan qaldırılması üçün, demək olar, əsas amildir. Bununla bərabər, iş yerlərinin açılması, yeni müəssisələrin işə salınması nəticəsində ölkə daxilində istehsal olunan əmtəələrin sayı, həcmi və çeşidi artır ki, bu da istər daxili bazarda tələbatın ödənilməsi, istərsə də ölkəmizin ixrac potensialının yüksəldilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb edir.

Milli iqtisadiyyatın və yerli istehsalın inkişafı nəticəsində 2010-cu ilin 11 ayı ərzində 145 ölkə ilə ticarət aparılmış, xarici ticarət dövriyyəsi 34,8 faiz artaraq 25,1 milyard dollar təşkil etmiş, 13,7 milyard dollar müsbət

saldo əldə edilmişdir. Xüsusilə, qeyri-neft ixracında 16 faizdən çox artım qeydə alınmışdır. İnsanların normal yaşayışı üçün xüsusi əhəmiyyət kəsb edən sosial sektorda müxtəlif obyektlər, o cümlədən 45 səhiyyə müəssisəsi, 70-dən çox məktəb binası tikilmiş və təmir edilmişdir.

Əlbəttə, ölkəmizin bütün sahələrdə, o cümlədən maliyyə sahəsində 2010-cu ildə əldə etdiyi uğurlar qarşıdakı illər üçün daha genişmiqyaslı tədbirlərin planlaşdırılmasına və reallaşdırılmasına imkan verəcəkdir. Artıq iqtisadi sahədə əldə edilən uğurlar davamlı xarakter almışdır ki, bunu NK-nın iclasında səslənən fikirlər də bir daha təsdiq edir. Belə ki, iclasda qeyd edilən fikirlərdən aydın olur ki, son 10 il ərzində ölkədə real iqtisadi artım 4 dəfə olmuş, ixracın həcmi 15 dəfədən çox, dövlət büdcəsi 15 dəfəyə qədər, investisiya xərcləri 96 dəfə, strateji valyuta ehtiyatları isə 31 dəfə artmışdır, bank aktivləri 15, əhalinin əmanətləri isə 36 dəfə çoxalmışdır. Bu müddətdə, eyni zamanda, bank sektoru dayanıqlılığını qorumuş və inkişafını davam etdirmiş, bank aktivlərinin orta illik artım tempi 25 faiz, əmanətlərin artım tempi 20 faizdən çox olmuşdur. 2010-cu il ərzində əhalinin əmanətləri 23 faiz, bütövlükdə bank aktivləri, kreditlər və məcmu kapital 8 faizdən çox artmışdır. Eyni zamanda, il ərzində 2435 nəfərə, o cümlədən 473 nəfərə güzəştli şərtlərlə kredit verilmişdir ki, bundan da 6200 ailə faydalanmışdır.

Təbii ki, bütün bunlar Azərbaycan xalqının xilaskar oğlu, dünya şöhrətli siyasətçi Heydər Əliyev tərəfindən bünövrəsi qoyulan iqtisadi strategiyanın real nəticələridir.

**“Xalq qəzeti”.-**2011.-22 may.-N 110.-S.3.

# DÜNYA MİQYASLI SİYASƏTÇİ

**İsmayıl HACIYEV,**
AMEA Naxçıvan Bölməsinin sədri, akademik

**Ümummilli lider Heydər Əliyevin anım günüdür**

**Azərbaycan xalqının tarixində və taleyüklü məsələlərin həllində müstəsna xidmətləri olan tarixi şəxsiyyətlər, görkəmli siyasət və dövlət adamları çox olmuşdur. Bunlar zaman-zaman gördükləri böyük işləri və əməlləri ilə yadda qalmış və unudulmamışlar. Belə tarixi şəxsiyyətlər içərisində Azərbaycan xalqının ümummilli lideri adını qazanmış görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi Heydər Əliyevin xüsusi rolu vardır. Çünki dövlət xadimlərindən ancaq bu dahi şəxsiyyət milli lider səviyyəsinə yüksəlmişdir. Milli liderliklə siyasi liderlik keyfiyyətlərinin bir dövlət adamında birləşməsi bəşər tarixində nadir rast gəlinən unikal haldır. Ulu öndər bu iki keyfiyyəti ehtiva etməklə bərabər, fəaliyyət göstərdiyi bütün digər sahələrdə də özünü məhz birinci şəxs kimi, lider kimi təsdiq etmişdir. Bu dahi insan Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi qalmışdır. Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərən ikinci dövlət adamı tapmaq mümkün deyildir. Bu mənada o, xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan milli liderimiz, güvənc yerimiz, qürur duyduğumuz və arxa bildiyimiz böyük Azərbaycanlı idi.**

Heydər Əliyev dünyanın nadir, unikal, seçilən siyasət adamı idi. O, dünya siyasətinə təsir etmək gücündə olan lider idi. Liderlər var ki, siyasi fəaliyyət, dövlət idarəetməsi sahəsində uzun illər çalışıb püxtələşdikdən sonra tanınırlar. Elə adamlar da var ki, bu, onlarda fitrən mövcuddur, genlərində kodlaşdırılıb, bir sözlə, ilahi vergidir. Buna Allahdan lider deyirlər. Heydər Əliyev məhz ikincilərdəndir. Digər vacib məqam səlahiyyət məsələsidir. Heydər Əliyev tək Azərbaycan səviyyəsində deyil, keçmiş ittifaq səviyyəsində, hətta Qərb miqyasında sözünün keçəri, urvatı olan lider idi. O, beynəlxalq səviyyədə düşünməyi və təhlillər aparmağı bacarırdı. Bu iki məqam onu həmkarlarından əhəmiyyətli dərəcədə fərqləndirən professional cizgilərdəndir. Bu dahi insan tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran, dövlət idarəçiliyi və siyasi təlimlər elminin müntəxəbatını öz fəaliyyəti ilə diktə edən nadir şəxsiyyətlərdən biri idi. O təkcə güclü təsərrüfatçı deyil, həm də sözlərinin çəkisi və sanbalı olan, kütləni arxasınca aparmağı, auditoriyanı inandırmağı bacaran bir siyasi xadim idi. Heydər Əliyev mahir psixoloq, insan qəlbinin dərin bilicisi idi. Buna görə də onun gələcəyi görmək qabiliyyəti başqalarına, həmkarlarına nisbətən daha güclü idi. Tarixi bəsirət, irəlini görmək nadir bir hissdir. Siyasi xadimlərin heç də hamısında bu hiss olmur. Təbiət bu keyfiyyəti yalnız seçilmiş adamlara - zəmanəsini çox-çox qabaqlayan görkəmli mütəfəkkirlərə verir. Nəhəng siyasətçi Heydər Əliyev kimi. O, analitik düşüncə tərzi ilə, çətin vəziyyətlərdə soyuqqanlılığını saxlamaq məharəti ilə, yüksək intellekti, dünya mədəniyyətinə bələdliyi ilə ətrafdakıları heyrətləndirirdi.

Ulu öndəri xarizmatik lider, fenomenal şəxsiyyət adlandırırlar. Müasir siyasi texnologiyalarda lider üçün xarizma məsələsi çox vacib şərt hesab edilir. Heydər Əliyev məhz güclü xarizmatik şəxsiyyət, fenomenal siyasətçi və dövlət xadimi idi. Onun ən böyük gücü dərin, həm də universal biliyində, qətiyyətində, işgüzarlığında, hökmündə, qeyri-adi yaddaşında, tükənməz səbrində, müsahibini təmkinlə dinləmək bacarığında, uzaqgörənliyində, qarşısına qoyduğu məsələni həyata keçirmək qabiliyyətində, müdrikliyində, ən böyük siyasətçi keyfiyyətlərində, mahir diplomat olmasında, həmsöhbətinə təsir etmək gücünə malik olmasında idi. Xeyirxahlıq və alicənablıq, inam və etibar, təmkin və səmimiyyət, zəka, səbat, diqqət və başqa cəhətlər Heydər Əliyevin fərdi naturasının özgün çalarları idi.

Heydər Əliyev böyük siyasət üçün yaranan, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin həllində qətiyyətli sözünü deyə bilən nadir siyasətçi idi. Onun bu sahədəki fitri istedadı və fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişatını öncə görmək məharəti siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü büruzə vermişdi. Təsadüfi deyildir ki, onun atdığı addımlar, irəli sürdüyü problemlər, qəbul etdiyi qərarlar, söylədiyi fikirlər öz aktuallığı, düzgünlüyü və obyektivliyi və hər cəhətdən ölçülüb biçildiyindən ətraflardakıları heyrətləndirmiş, siyasət aləminin patriarxı adını qazandırmışdır. Hətta dünyanın ən görkəmli siyasət və dövlət xadimləri Heydər Əliyevlə məsləhətləşdiklərini, ondan öyrəndiklərini dönə-dönə etiraf etmişlər. Siyasətçilər bu dahi insanı "liderlərin lideri" adlandırırdılar. Onun siyasətinin gücü nədə idi?!

- Siyasi uzaqgörənliyində, fitri istedadında, müdrikliyində, ölçülüb-biçilmiş qərarlarında, qətiyyətliliyində, siyasi iradəsində, dərin zəkasında, ensiklopedik biliyə malik olmasında, geniş dünyagörüşündə, milli maraqlara

əsaslanmasında, tarixi şəraitdən düzgün baş çıxarmasında, zaman və məkan amilini qiymətləndirməsində, dözüm və səbirliliyində, nəzəriyyəyə istinad etməsində və praktik həyatdan baş çıxarmasında - bir sözlə, fenomenal şəxsi keyfiyyətlərində idi. Bu dahi siyasətçi zərgər dəqiqliyi ilə, ölçülüb-biçilmiş qərarlar qəbul edirdi. Onun fəaliyyəti haqsız yerə "təftiş" ediləndə belə irad tutulması, "nöqsan deyiləsi" olan bir fakt belə tapa bilməmişlər. Yarım əsrlik siyasi fəaliyyətin qızıl qaydası çoxları üçün təəccüblü idi. Təəccüb və möcüzələr, başqalarını şok vəziyyətinə salan faktlar yüzlərlədir. Elə bu keyfiyyətlər onu başqalarından fərqləndirirdi.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə uzaqgörən daxili və xarici siyasəti ilə ölkənin nüfuzunu artırmış, hərtərəfli inkişafına nail olmuş, müstəqilliyini əbədi və dönməz etmişdir. Kiçik bir ölkə Heydər Əliyevin uğurlu siyasəti sayəsində dünyada tanınan nüfuzlu bir dövlətə çevrilmişdi. 1993-cü ildə müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev siyasət aləmində çox güclü, səriştəli və təcrübəli müdrik dövlət xadimi kimi qısa bir müddət ərzində xarici siyasət sahəsində böyük dönüş yaratdı. Dünyanın aparıcı dövlətləri, inkişaf etmiş ölkələri, beynəlxalq təşkilatlar Azərbaycana ciddi diqqət yetirməyə başladılar. O, Qərbə inteqrasiya yolunu tutdu. Ən çətin anlarda belə Heydər Əliyev yenilməz siyasi iradə nümayiş etdirdi, milli dövlətçiliyin, milli mənafelərin ifadəçisi kimi antiazərbaycan, antimilli qüvvələrin qarşısında sipərə çevrildi, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişi məhz bu böyük insanın qətiyyətli mövqeyinin, uzaqgörənliyinin nəticəsi kimi reallığa çevrildi.

Heydər Əliyev idarəetmənin ustadı, siyasətin kamil bilicisi kimi bütün dünyada məşhur idi. Bu dahi insanın təliminə görə siyasət və uzaqgörənlik qarşılıqlı vəhdətdədir. Ulu öndər deyirdi ki, reallığı düzgün qiymətləndirən, keçmiş təcrübədən yaradıcılıqla istifadə edən, sosial-siyasi və iqtisadi problemlərin bütün spektrini, mürəkkəbliyini nəzərə alan, qəbul olunan qərarların mümkün nəticəsini irəlicədən görməyə imkan verən siyasi xətt hökmən uğur qazanmalıdır. Belə siyasət cəmiyyətin sabitliyinə, irəliyə doğru hərəkətinə və tərəqqisinə xidmət edir.

Heydər Əliyev uzaqgörən və ağıllı siyasətçi kimi nəyi nə zaman deməyi, hansı addımı nə vaxt atmağı zərgər dəqiqliyi ilə bacarırdı. Ulu öndər qeyd edirdi ki, "biz nazik sapın üstü ilə gedirik. Odur ki, biz gərək bu siyasəti o qədər ağılla, o qədər məharətlə aparaq ki, Azərbaycanın milli mənafeləri müdafiə olunsun".

Onun siyasəti milli maraqlar üzərində qurulmuşdu. Xalqımızın və dövlətimizin elə bir problemi olmamışdır ki, həmin problemləri kimsə Heydər Əliyev yüksəkliyində dərk etmiş olsun. O, hər hansı problemə həsr olunmuş yığıncaqda məsələyə dərindən bələdliyi, verdiyi suallar, qaldırdığı problem məsələlərlə həmin sahənin mütəxəssislərini belə heyrətləndirirdi. Çünki o, istər sənaye, istər kənd təsərrüfatı, istərsə də elm, maarif, mədəniyyət ilə bağlı məsələlərin müzakirəsində bütün iştirakçıları həmin sahənin əvəzedilməz bilicisi kimi idarə edirdi. Onun kimi təsərrüfatı təsərrüfatçıdan, tariximizi tarixçidən, incəsənətimizi sənətşünasdan, iqtisadiyyatı iqtisadçıdan yaxşı bilən, onun problemlərini həll etməyə istiqamətləndirən ikinci adam tapmaq mümkün deyil. Heydər Əliyevin mülahizələri problemlərə dərindən bələdlik, hadisələrin məğzinə, səbəb-nəticə əlaqələrinə nüfuz etmək xüsusiyyəti ilə seçilirdi. Azərbaycanın daxili siyasətini istiqamətləndirən, xarici siyasətini beynəlxalq hüquq normalarına uyğun, məqsədyönlü və tarazlaşdırılmış şəkildə aparan qətiyyətli dövlət xadimi çox hallarda ən tanınmış siyasətçiləri belə təəccübləndirir və onun ağıllı siyasətini birmənalı olaraq qəbul edirdilər. Elə bu cəhətlərinə görədir ki, xalqımız onu əsrin böyük Azərbaycanlısı, xalqın xilaskarı, müstəqil Azərbaycan dövlətinin memarı və Azərbaycanı dünyaya tanıdan insan kimi qəbul edir, hörmət bəsləyir və ürəkdən sevirdi.

Bu da bir həqiqətdir ki, dünyada tanınan, sevilən, şəxsiyyətinə, siyasi və dövlətçilik fəaliyyətinə çox böyük hörmətlə yanaşılan Heydər Əliyev haqqında söz demək, fikir söyləmək o qədər də asan deyil. Bu gün dünya ictimaiyyəti Azərbaycanı və onun liderini tanıyır, onu minnətdarlıqla xatırlayırsa, ünvanına ən xoş sözlər söyləyirsə, yüksək rəyini, fikrini deyirsə, bu özü xalqımız üçün böyük şərəfdir. Biz qürur duyuruq ki, xalqımızın dünyada bu səviyyədə sevilən, hörmət bəslənilən ümummilli lideri olmuşdur.

Heydər Əliyev fenomeni, onun şəxsiyyətinin ucalığı, fövqəladə idarəçilik qabiliyyəti, yüksək intellekti nəticəsində dünyanın görkəmli siyasətçiləri və dövlət xadimləri arasında onun adı həmişə birincilər sırasında çəkilib. Azərbaycan coğrafi cəhətdən kiçik ölkə olsa da, Heydər Əliyevin böyük siyasət adamı olaraq beynəlxalq miqyasda özünü təsdiq etməsinə heç vaxt mane olmayıb. Ən məşhur, tanınmış siyasətçilərin reytinqinin müəyyənləşdirilməsi üçün aparılan beynəlxalq sorğularda, siyasi institutların, sosioloji mərkəzlərin araşdırmalarında Heydər Əliyevin adının birincilər sırasında yer tutması onun siyasətdə, həyatda, dövlətçilik təcrübəsində qazandığı uğurların təsdiqi idi. Təkcə belə bir faktı göstərmək kifayətdir ki, hələ on ildən artıq bundan əvvəl Braziliyanın "Planetin səsi" qəzeti doqquz dövlətin jurnalistlərinə "dünyanın hansı üç super siyasətçisinin adını çəkə bilərsiniz" sualını vermiş və altı dövlətin jurnalistləri birinci olaraq ümummilli lider Heydər Əliyevin adını çəkmişdir.

Ulu öndərimizin bu nüfuzu onun xalq və ölkə qarşısındakı əvəzsiz xidmətləri, özünün nəsillərə nümunə ola biləcək həyat fəaliyyəti, iti düşüncəsi, əqidə və məsləki ilə, onun rəhbərliyi dövründə Azərbaycanın demokratiya və müstəqillik yolunda atdığı uğurlu addımları ilə bağlıdır. Dünya siyasətçiləri, beynəlxalq içtimaiyyət və xalqımız bu dahi insanı Heydər Əliyev olduğuna görə deyil, vətən və dövlət qarşısında gördüyü böyük işlərə, dünyada təhlükəsizliyin qorunmasına, düzgün və pozitiv inkişafa çalışdığına, siyasi və ictimai fəaliyyətinə görə qiymətləndirmişdir. Bu səbəbdəndir ki, dünyanın ən görkəmli siyasi xadimləri, dövlət rəhbərləri, tanınmış elm və mədəniyyət nümayəndələri Heydər Əliyev şəxsiyyətini yüksək qiymətləndirmiş, ondan çox şey öyrəndiklərini bildirmişlər. Onun haqqında deyilən söz, verilən qiymət bu gün də, sabah da lazımdır, bunlar tariximizin yaddaşına köçürülməlidir.

Heydər Əliyev qlobal düşüncəli, geniş dünyagörüşlü nəhəng bir siyasətçi idi. O, realist bir insan olaraq hadisələrə praqmatik yanaşırdı, tarixi şəraitdən düzgün baş çıxarırdı, ölkənin taleyi üçün uğurlu qərarlar qəbul edirdi. Onun ağıllı və uzaqgörən siyasətində hər şeyin öz yeri və vaxtı var idi. O, beynəlxalq aləmdə tarazlaşdırılmış siyasətin, ölçülüb-biçilmiş fəaliyyətin ustadı idi. Bu dahi siyasət adamı bütün fəaliyyəti boyu müdrik insan, qətiyyətli rəhbər, xalq məhəbbətini qazanan uzaqgörən siyasətçi və ağıllı dövlət xadimi olduğunu təsdiq etmişdir. İnanmaq çətindir ki, dünyada xalqa bu qədər yaxın ikinci bir siyasətçi olar. Siyasətçi üçün lazım olan keyfiyyətlərlə yanaşı, onda idarəetmə keyfiyyətləri, dövlətçilik təcrübəsi ən yüksək səviyyədə idi. Elə bunlar idi onun siyasətinin ucalığı, aliliyi, uzaqgörənliyi və heyrətamizliyi. Heydər Əliyev siyasəti bütün dünyanı ehtiva edə bilir, düzgün istiqamətə yönəldirdi. Heydər Əliyevin beynəlxalq Atatürk sülh mükafatına layiq görülməsi onun dünyada apardığı sülh siyasətinə verilən qiymət idi. O, dünyanın bütün ölkələri və onların rəhbərləri ilə, hətta məkrli düşmənlərimizlə də "sülh dili" ilə nəinki danışmağı bacarırdı, onlara da bunu aşılaya bilirdi. Ulu öndərimizin ən ali insani keyfiyyətləri, fenomen xarakteri, insanlarla dil tapmaq bacarığı, hərəni öz dilində danışdırmaq məharəti onu tanıyanların sevimlisinə çevirirdi. Hər dövlət xadiminə xas olmayan üstünlüklər ulu Tanrının Heydər Əliyevə verdiyi ən ali keyfiyyətlər idi. Görəsən bəşəriyyət belə nəcib, yüksək intellekti ilə seçilən dövlət xadimləri, siyasət nəhəngləri ilə çoxmu qarşılaşıb?! Təəssüf ki, buna heç də çox rast gəlinməyib. Heydər Əliyev kimi dövlət və siyasət adamları bəşəriyyətin, insanların xeyrinə, sülhün və əmin-amanlığın təmin edilməsinə yetərincə pay vermişlər.

Azərbaycan xalqının ümummilli lideri yüksək bəşəri keyfiyyətlərə, təvazökarlığa, hər şeydən öncə isə demokratik dövlət quruculuğu prinsiplərinə daim sadiq qalan böyük şəxsiyyət idi. O, Azərbaycan tarixində bəlkə də yeganə siyasət adamıdır ki, onun fəaliyyəti yalnız konkret sahələri əhatə etmir, həm də ümummilli və qlobal əhəmiyyətli problemlərin aradan qaldırılmasına xidmət edir. Onun xalq işinə sədaqəti, siyasi müdrikliyi, böyük dövlətçilik təcrübəsi, parlaq hafizəsi, geniş dünyagörüşü, polad iradəsi, mərdanə qətiyyəti, həssas qəlbi, möhkəm səbri, çox hövsələliyi, ədalətli olması, həmişə obyektiv mövqe tutması, yüksək intellekti və ziyalı mövqeyi, dolğun tədbirliliyi və analitik təfəkkürü, sadə davranışı, heyrətamiz enerjisi... - bir dövlət başçısı kimi onun ən yüksək keyfiyyətləri idi. Heydər Əliyevin dərin məntiqli nitqi, natiqlik məharəti, söz seçmək bacarığı, auditoriya ilə ünsiyyət qurmaq səriştəsi onu dinləyənləri məftun edirdi. Onun nitqi dərin və konkret idi, müzakirə olunan məsələni yüksək səviyyədə ümumiləşdirmək bacarığına malik idi. Ulu öndərin nitq və çıxışlarında artıq söz və ifadə, qeyri-dəqiq fakt və rəqəm olmur, fikirlərini son dərəcə cilalanmış şəkildə ifadə edirdi. O, məsələnin mahiyyətini açmağa, mövzunun milli mənafe, dövlətçilik mövqeyindən təhlil etməyə xidmət edən məsələni ustalıqla göstərməyi bacarırdı. Görkəmli siyasətçi üçün uzaqgörənlik, düzgün qərar çıxartmaq nə qədər əhəmiyyətlidirsə, rəvan nitqə, yüksək intellektə, təhlil etmək bacarığına yiyələnmək də bir o qədər vacibdir. Bu cəhətdən Heydər Əliyevə uyğun gələn siyasətçi çox azdır. Ümummilli lider Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin obyektiv təhlili göstərir ki, o, başqalarından fərqli olaraq qeyri-adi zəkaya, böyük enerjiyə, islahatçı təfəkkürə, yüksək analitik təfəkkürə və yenilməz iradəyə malik siyasətçi idi. "Siyasət üçün doğulmuşlar siyasətdən əl çəkdikcə, siyasət onlardan əl çəkmir" - deyimi tamamilə Heydər Əliyevə aid edilə bilər. Ona görə də bir sıra hallarda Heydər Əliyevi "siyasət nəhəngi", "siyasət qrosmeysteri", "siyasət patriarxı"... kimi xarakterizə edirlər. Qüdrətli dövlət xadimi siyasət aləminin müəllimi idi. Onun müəllimliyindən çoxlarına pay düşmüşdür.

Xalqımız qarşıya çıxan hər hansı bir çətin problemlərin həllini, xilaskarlıq missiyasını Heydər Əliyevdə görürdü. Bu, on illərllə formalaşmış fikirdir, özü də doğru və düzgün fikirdir. Ölkəmizin fəxri, mili iftixarımız və liderimiz olan Heydər Əliyev bütün problemlərin həll olunmasının öhdəsindən yüksək səviyyədə gəlmişdir. Çünki o, bir neçə on il bundan sonra görəcək işləri bu gün həyata keçirməyi bacaran nadir keyfiyyətlərə malik uzaqgörən siyasətçi və təcrübəli dövlət xadimi idi. Onun siyasəti ölçülüb-biçilmiş, gələcəyə ünvanlanmış siyasət idi.

Ümummilli lider Heydər Əliyevi dünyanı dəyişmiş insanlar cərgəsinə aid etmək olar. Müasirləri onun gördüyü işləri hələ layiqincə dəyərləndirməyiblər: onun yer üzünə nə üçün gəldiyini və kim tərəfindən

göndərildiyini tam dərk edə bilmək üçün hələ olduqca az vaxt keçib. XX əsr və XXI əsrin başlanğıcının görkəmli siyasətçilərindən və dövlət xadimlərindən biri olan Heydər Əliyevin ibrətamiz həyatı və heyrətamiz siyasi fəaliyyəti gələcək yüzilliklərdə hələ neçə-neçə siyasət adamına istiqamət verəcəkdir.

Bu gün ölkəmiz bu siyasətin uğurlarını hiss edir, onunla yaşayır və faydalanır. Bu siyasətin icraçısı ulu öndərimizin layiqli siyasi varisi cənab İlham Əliyevdir. Onun rəhbərliyi ilə Heydər Əliyev siyasəti yaşayır və uğurla davam etdirilir. Azərbaycan Respublikası Heydər Əliyev siyasəti ilə irəliləyir və yaşayır. Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasıdır, gələcəyə istiqamətlənmişdir. Onun siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, sosial-iqtisadi tərəqqiyə nail olması kimi ağır və taleyüklü məsələlərdə sınaqdan çıxmışdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını qat-qat artırmış, Heydər Əliyev yolunun layiqincə davam etdirildiyinə, memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaratmışdır. Ulu öndər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini aydın görən xalqımız bu siyasəti yüksək dəyərləndirir və onun ətrafında daha sıx birləşirlər. Cənab İlham Əliyev ulu öndərin siyasi kursunu layiqincə davam etdirməklə, xalqımızın və dövlətçiliyimizin bu kursun mahiyyətindən doğan milli maraqlarını beynəlxalq miqyasda təmin edir. Heydər Əliyev siyasətinin uğurla həyata keçirilməsi müstəqilliyimizi möhkəmləndirir, dövlətçiliyimizi qüdrətləndirir və nəticədə beynəlxalq aləmdə Azərbaycan Respublikasının rolunu və nüfuzunu artırır.

“**Azərbaycan**”.-2011.-11 dekabr.-N 274.-S.1-2.

# MÜASİR AZƏRBAYCAN: HEYDƏR ƏLİYEV İDEYALARI İLƏ UĞURLU İNKİŞAF YOLUNDA

**Bahar MURADOVA,**
Azərbaycan Respublikası
Milli Məclisi sədrinin müavini,
YAP İdarə Heyətinin üzvü

**Cənubi Qafqaz regionunun lider dövləti olan, ildən-ilə Avropanın enerji təhlükəsizliyi məsələsində əhəmiyyətli tərəfdaşa çevrilən və dünya miqyasında nüfuzu artan Azərbaycanın əldə etdiyi inkişaf trayektoriyası istər dünya ölkələri, istərsə də beynəlxalq təşkilatlar tərəfindən xüsusi olaraq vurğulanır. Bir neçə il öncə başlayan qlobal maliyyə böhranının fonunda ölkəmizdə müşahidə olunan dayanıqlı iqtisadi inkişaf Azərbaycanda həyata keçirilən uğurlu daxili iqtisadi-sosial siyasətin bəhrəsi sayıla bilər. Bu, ölkəmizin inkişafının əsas təməl prinsipini özündə əks etdirən ulu öndər Heydər Əliyevin siyasi kursunun Azərbaycanda paralel olaraq bütün sahələr üzrə inkişafını təmin etməsini əsaslandıran amildir.**

Dayanıqlı iqtisadi siyasət, habelə müstəqil və tarazlı şəkildə həyata keçirilən xarici siyasət kursu Azərbaycan dövlətinin hər bir müstəvidə - istər daxili sabitliyin, inkişafın təminatında, istərsə də beynəlxalq dayaqların möhkəmləndirilməsində mühüm əhəmiyyət kəsb edir. Qeyd olunan sferalarda qısa zaman kəsiyində iqtisadi, mədəni, sosial və hərbi-siyasi sahədə qazanılan uğurlar ilk növbədə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Xüsusi olaraq vurğulanmalıdır ki, sadalanan nailiyyətlərin əldə olunması, müasir Azərbaycanın ərsəyə gəlməsi, müstəqilliyimizin qorunub saxlanılması, dövlətçiliyimizin inkişafı ulu öndərin ideyaları əsasında hazırlanan, dövlətimizin milli maraqlarına söykənən dövlət quruculuğu kursuna əsaslanır.

Qeyd etmək lazımdır ki, əldə olunan iqtisadi uğurların əsası hələ ulu öndər Heydər Əliyevin Sovet İttifaqı zamanında Azərbaycana rəhbərliyi dövründə qoyulmuşdu. Həmin dövrdə keçmiş İttifaq ərazisində aqrar ölkə kimi tanınan Azərbaycanın sənaye mərkəzinə çevrilməsi, qısa zaman kəsiyində ölkəmizdə mühüm sənaye komplekslərinin fəaliyyətə başlaması, respublikamızda həyata keçirilən əhəmiyyətli iqtisadi-siyasi layihələr bunu deməyə əsas verir.

Yuxarıda vurğulandığı kimi, ulu öndərimiz Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanın həyatında yeni eranın təməli qoyuldu. 1990-cı illərin əvvəlində, gərgin bir zamanda yalnız nominal şəkildə özünü müstəqil aparmağı bacaran, reallıqda isə böyük dövlətlərin geosiyasi maraqlarının toqquşduğu bir müstəvidə de-fakto suverenlik hüquqlarından məhrum olan Azərbaycanın bugünkü müstəqil, müasir və qüdrətli dövlətə çevrilməsi prosesi dövlətçilik tariximizin qızıl hərflərlə yazılan səhifələri sayıla bilər. Məhz belə bir çətin durumda, Azərbaycanın müstəqilliyini itirmə astanasında, torpaqlarımızın xarici və daxili separatçıların və naqislərin fəaliyyəti nəticəsində bölünməsi əsnasında ulu öndər Heydər Əliyev Azərbaycanın suverenliyinin qarantına çevrildi, dövlətimizi qorudu və uçurumdan xilas etdi. Bu çətin prosesin bütün ağırlığı, çətinliyi, məsuliyyəti ulu öndər Heydər Əliyevin, şərəfi və bəhrəsi isə bütün Azərbaycan xalqının payına düşdü. Azərbaycanın dövlət müstəqilliyini xilas etməklə yanaşı, ölkəmizi vahid ideologiya - azərbaycançılıq ideologiyası ətrafında birləşdirməyi bacaran ulu öndər Heydər Əliyev Azərbaycanda müasir dövlətçilik fəlsəfəsinin də əsasını qoydu. Bu, vahid, bölünməz və qüdrətli Azərbaycan dövlətinin əsasının qoyulduğu gün idi. Ulu öndər Heydər Əliyev xalqımızın keçmişini, öz milli dəyərlərinə bağlılığını çox yüksək qiymətləndirirdi. Odur ki, öz milli kimliyimizin əldə olunması, tariximizin özümüzə qaytarılması istiqamətində mühüm addımlar atıldı.

Hər zaman istər dini, istərsə də etnik tolerantlığı ilə seçilən Azərbaycanda vahid Azərbaycan xalqının formalaşması gerçəkliyi məhz azərbaycançılıq ideyasına əsaslanır. Ulu öndər Heydər Əliyevin "Fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamı ölkəmizdə yaşayan bütün xalqların vahid bir ideya, vahid bir gələcək, vahid bir dövlət ətrafında birləşməsi, bu uğurda mübarizəsini daha yüksək səviyyədə inkişaf etdirməsi üçün bir stimula çevrildi. Bu, həm də yüzilliklər ərzində formalaşan dini baxışların daha yüksək səviyyəyə qaldırılmasına yol açırdı. Həqiqətən də, bu gün tolerantlıqda nümunəyə çevrilən müasir Azərbaycan modeli bütün dünya ölkələri tərəfindən maraqla tədqiq olunur. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan Azərbaycan Konstitusiyasında dinindən, irqindən asılı olmayaraq bütün vətəndaşların qanun qarşısında eyni məsuliyyətə malik olduğu qeyd edilir. Bu isə, həm də Azərbaycanda, müasir demokratik prinsiplərə əsaslanan dövlətçilik kursunun inkişaf etdirilməsini sübut edən mühüm amildir. Digər tərəfdən, ölkə vətəndaşlarına Konstitusiya ilə vicdan azadlığının tanınması Azərbaycanda dini konfessiyalara qarşı dözümlülüyün sübutudur. Ümumiyyətlə,

bu gün Azərbaycanın bir çox ən qədim demokratiya ənənələrinə malik olan dövlətlərə belə dini-etnik tolerantlıq baxımından nümunə göstərilməsi gerçəkliyinin kökündə məhz Heydər Əliyevin təməlini qoyduğu ideyalar dayanır.

Azərbaycanın coğrafi baxımdan qərarlaşdığı məkanın Şərqlə Qərbin qovşağı olması ölkəmizdə mədəniyyətlərarası dialoqun yaranmasını zəruri edir. Ümummilli liderimiz hər zaman Azərbaycanın istər Şərq, istərsə də Qərb mədəniyyətinə və dəyərlərinə inteqrasiyasının zəruriliyini gündəmə gətirirdi. Bu proses isə birtərəfli deyil, qarşılıqlı yararlanma prinsipinə söykənir. Yəni Azərbaycan bu gün iki fərqli sivilizasiya arasında körpü rolunu oynamaqla Şərq və Qərb yarımkürələrində öz nüfuzunu gücləndirməkdədir. Bu ideya əsası ulu öndərimiz tərəfindən qoyulan xarici siyasət kursumuzda da kifayət qədər özünü əks etdirir. Bu gün Azərbaycan BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı və bu kimi mötəbər təşkilatların tam hüquqlu üzvüdür. Ölkəmiz Avropa Birliyinin həyata keçirdiyi "Şərq tərəfdaşlığı" layihəsi çərçivəsində Avropaya inteqrasiya prosesinin önündə addımlayır. Sözsüz ki, bu uğurlar ilk növbədə Heydər Əliyevin xarici siyasət sahəsində apardığı islahatların və onun siyasi varisi olan ölkə Prezidenti cənab İlham Əliyevin bu istiqamətdə göstərdiyi titanik fəaliyyətin nəticəsidir. Çox da uzaq olmayan tarix sübut edir ki, xaotik və birtərəfli şəkildə istiqamətlənmiş xarici siyasət kursu dünyada və regionda aparıcı rol oynayan dövlətlərin qısqanclığına səbəb olur və Cənubi Qafqaz kimi həssas bir regionda dövlətlərin qütbləşmə oyununa sürüklənməsinə yol aça bilər. Müstəqilliyinin ilk illərindən biz Azərbaycanın belə problemlərlə üz-üzə qaldığının şahidiyik. O dövrki rəhbərlərin tutduğu bu yolun ölkəni hansı təhlükələrlə üz-üzə qoyduğu heç kimə sirr deyil. Məhz Heydər Əliyev tərəfindən yürüdülən və əsası qoyulan balanslaşdırılmış və şaxələndirilmiş xarici siyasət kursuna önəmin verilməsi bu təhlükələri aradan qaldırdı. İlk növbədə, Rusiya və İran kimi dövlətlərlə münasibətlər tənzimləndi. Azərbaycanın postsovet məkanında yaradılan Müstəqil Dövlətlər Birliyinə daxil olması Rusiyanın ölkəmizə qarşı qısqanc mövqeyini neytrallaşdırdı. Bu addımla ulu öndər Heydər Əliyev Azərbaycanın çoxəsrlik şimal qonşusuna qarşılıqlı faydalanma prinsipinə söykənən münasibətlər təklif etdiyini göstərdi. Bakı-Tehran münasibətləri yeni keyfiyyət müstəvisinə keçirildi. Qardaş Türkiyə ilə münasibətlər daha da möhkəmləndirildi. Ankara Heydər Əliyev kimi dühanın simasında beynəlxalq arenada daha önəmli, daha çevik və daha tutarlı siyasət aparmaq üçün güclü müttəfiq qazandı. Heydər Əliyevin xarici siyasət kursu Mərkəzi Asiya dövlətləri ilə münasibətlərdə önəmli dönüş yaratdı. Dünənə qədər Azərbaycanla bağlı baş verən hadisələrə biganə yanaşan ölkələr artıq xalqımızın haqq işində Bakının etibarlı müttəfiqinə çevrildilər. Azərbaycan türkdilli dövlətlər arasındakı münasibətlərin kəsişdiyi və təmərküzləşdiyi məkan rolunu oynamağa başladı.

Lakin Heydər Əliyevin xarici siyasət kursu yalnız regional dövlətlərlə qarşılıqlı əlaqələrin möhkəmlənməsini nəzərdə tutmurdu. Qərbin və ümumiyyətlə dünyanın aparıcı dövlətləri ilə münasibətlər yalnız beynəlxalq və regional qurumlar çərçivəsində deyil, habelə ikitərəfli sazişlər müstəvisində genişləndirilməyə başladı. İnteqrasiya strategiyası bu dövlətlərdə mövcud olan tarixi ənənələrdən yararlanaraq Azərbaycanda milli çalarlara malik olan, modernləşmə, müasirlik, novatorluq və yenilənmə prinsiplərinə söykənən cəmiyyətin yaradılmasına istiqamətləndi. Müasir dövrün tələblərinə cavab verən Konstitusiyanın və seçki qanununun qəbul edilməsi deyilənlərə əyani sübutdur.

Heydər Əliyevin hakimiyyətə qayıdışının ilk günlərində dövlət quruculuğu, demokratik institutların təşəkkül taparaq inkişaf etdirilməsi, siyasət, sosial-iqtisadi, təhsil, mədəniyyət, səhiyyə, infrastruktur sahələrində önəmli islahatların keçirilməsinə start verildi. Şəksizdir ki, başlanılan islahatların uğurla həyata keçirilməsi üçün ilk növbədə Azərbaycanın iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsi tələb olunurdu. Çünki bu gün beynəlxalq münasibətlər sistemində siyasətin formalaşdırılmasının əsasında iqtisadi amillər dayanır. Yəni dövlətlərarası münasibətlərin inkişafında iqtisadi əlaqələrin varlığı olduqca mühüm rola malikdir. Əvvəlki hakimiyyətlərin anlaşılmaz, bir çox hallarda isə qərəzli və şəxsi mənfəət çərçivəsində yürütdüyü iqtisadi siyasət isə Azərbaycanı kataklizmlər uçurumuna yuvarlayıb, hiperinflyasiyanın tüğyan etməsinə, dövlət borclarının az qala ümumdaxili məhsulun həcmi səviyyəsinə qalxmasına, beləliklə də ölkənin müstəmləkə halına düşə biləcəyinə gətirib çıxarmışdı. Digər tərəfdən, Azərbaycanda daxili qeyri-sabit siyasi vəziyyət ölkəmizə xarici investisiyanın gəlişinin qarşısını alırdı. Hakimiyyət daxilindəki xaotik mənzərə ölkənin iqtisadi-siyasi durumuna da təsir edirdi. Heydər Əliyevin gündəmə gətirdiyi iqtisadi siyasət bu neqativ halların qarşısına etibarlı sipər çəkdi, qərəzli və kortəbii siyasət nəticəsində Azərbaycanın sərvətinin müxtəlif çeşidli fırıldaqçı xarici ünsürlərə "peşkəş" edilməsi prosesinə birdəfəlik xitam verildi.

Eyni zamanda, Azərbaycan iqtisadiyyatında əhəmiyyətli çəkiyə malik olan energetika sektoruna dünyanın ən aparıcı, ən nüfuzlu və sanballı şirkətləri cəlb edilməyə başladı ki, bu siyasətin təməlində Heydər Əliyevin neft strategiyası dururdu. Belə ki, dərin iqtisadi tənəzzül prosesi yaşayan Azərbaycan üçün ilk növbədə dünya miqyasında daha cəlbedici olan neft sektoruna xarici sərmayələrin yatırılması prioritet vəzifə kimi qarşıya qoyuldu.

Çünki ilkin mərhələdə yalnız bu yolla Azərbaycan iqtisadiyyatını tənəzzüldən xilas etmək və ölkənin həm daxili potensial imkanlarını, həm də xarici kapitalı Qərblə ayaqlaşa biləcək müasir bir dövlətin formalaşmasına yönəltmək mümkün idi. Beynəlxalq aləmdə dünya siyasətinin ən görkəmli xadimlərindən biri sayılan Heydər Əliyevin verdiyi zəmanət kifayət etdi ki, ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Yaponiya və digər aparıcı dövlətlərin ən sanballı şirkətləri Azərbaycanın neft-qaz sektoruna sərmayə yatırsınlar. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsiylə start götürən neft strategiyasının uğurları sonradan Bakı-Tbilisi-Ərzurum qaz kəməri və Bakı-Tbilis-Qars dəmir yolu kimi digər transmilli layihələrin inşasına yol açdı. Bu isə Ermənistanın təcavüzü nəticəsində işğal olunan Dağlıq Qarabağın və digər rayonlarımızın azad edilməsi istiqamətində aparılan siyasətin daha yüksək səviyyədə dəstəklənməsinə gətirib çıxardı.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan xarici siyasət kursu bu gün Prezident İlham Əliyev tərəfindən daha da modernləşdirilir, müasir beynəlxalq münasibətlər sisteminə uyğunlaşdırılır və inkişaf etdirilir. İstər daxili, istərsə də xarici arealda sabit, milli maraqlara söykənən, problemlərin həllinə istiqamətlənən, vətəndaşların hüquq və azadlıqlarının genişləndirilməsini özündə əks etdirən və ən əsası münasibətlərin və əlaqələrin normal və tərəfdaşlıq çərçivəsində inkişafına nail olan siyasətin yürüdülməsi ölkəmizin bütün mənalarda yüksək nailiyyətlərə imza atmasına şərait yaradıb. Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilən xarici siyasət kursu Azərbaycanın yerləşdiyi Cənubi Qafqaz bölgəsində lider, Avropa və digər kontinentlər üçünsə kifayət qədər ciddi tərəfdaş kimi qəbul edilməsinə yol açıb. Azərbaycan bu gün də dünya dövlətləri ilə açıq və ikitərəfli münasibətlərin inkişafını özündə ehtiva edən xarici siyasət kursu yürüdür. Azərbaycan hakimiyyətinin ortaya qoyduğu bu məramın aydın və səmimi olması nəticə etibarı ilə dünya tərəfindən təqdir edilir. Məsələlərə yalnız beynəlxalq hüquq və milli maraqlar çərçivəsindən baxma prinsipi Azərbaycanın həm Qərb, həm də Şərq ölkələri ilə eyni dərəcəli münasibətlər qurmasına imkan verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər zaman ölkəmizin bu prinsiplərə sadiq qalacağını xüsusi olaraq vurğulayır. Bu məsələlərə toxunan dövlət başçısı bildirmişdir: "Azərbaycan beynəlxalq arenada özünə layiq yerini tuta bilmişdir. Xarici tərəfdaşlarımızın, dostlarımızın sayı gündən-günə artır. Azərbaycan çox gözəl beynəlxalq imicə malikdir. Bizim bütün xarici siyasətimiz bir məqsədi güdür ki, Azərbaycanın milli maraqları maksimum dərəcədə təmin olunsun, Azərbaycan dövləti güclənsin və Azərbaycan xalqı daha da yaxşı yaşasın".

Birmənalı şəkildə vurğulamaq lazımdır ki, Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət kursunun milli mənafeyə əsaslanması uzun illər erməni yalanlarının, şər, böhtan dolu təbliğatın qarşısında iradə nümayiş etdirən ölkəmizin haqq səsinin dünyaya daha aydın çatdırılmasında müstəsna rola malikdir. Dünya ictimaiyyəti Azərbaycanın ədalətin və həqiqətin bərpası uğrunda mübarizə apardığını anlayır. Şübhəsiz, bütün bu dövr ərzində aparılan məqsədyönlü xarici siyasət Azərbaycanın dünya miqyasında mövqelərinin həddindən artıq möhkəmləndirilməsində başlıca rol oynayıb. Bunun nəticəsində də Azərbaycan dünyanın aparıcı dövlətlərinin yaxın tərəfdaşına çevrilib.

Bu il oktyabrın 24-də Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi möhtərəm Prezidentimiz İlham Əliyevin düşünülmüş, ağıllı, uzaqgörən siyasi fəaliyyətinin nəticəsidir. Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv seçilməklə ümumbəşəri məsələlərin həllində əsas söz sahiblərindən birinə çevrilmişdir. Bu seçkidə dünyanın 155 ölkəsinin Azərbaycana etimad göstərməsi müstəqil dövlətimizin dünya birliyində yüksək reytinqə malik olmasının nəticəsidir. Müstəqilliyimizin 20 illik tarixində Azərbaycanın xarici siyasət sahəsində qazandığı bu parlaq qələbə bir daha təsdiqləyir ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş daxili və xarici siyasət bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi ölkəmizin diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətələrindən biri kimi dəyərləndirilməli və ölkəmizin son illər dünya miqyasında artaq siyasi nüfuzunun bariz sübutu kimi qəbul edilməlidir.

Ölkəmiz artıq Avropanın əsas enerji mənbələrindən biridir. Azərbaycanın dünya miqyasında yaxın tərəfdaş kimi qəbul olunmasında ən mühüm şərt ölkəmizin əldə etdiyi iqtisadi inkişaf, potensial və siyasi sabitlikdir. Bundan başqa, ölkəmizin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılmasında mühüm strateji mövqeyə malik olması, dünyanın enerji təhlükəsizliyində oynadığı rol hətta böyük ölkələrin də Azərbaycana qarşı münasibətdə diqqətli mövqe tutmağa sövq edir. Azərbaycan Prezidenti İlham Əliyev hər zaman ölkəmizin hətta kökündə iqtisadiyyat dayanan məsələlərə belə öz milli maraqları müstəvisindən yanaşdığını bildirmişdir.

Heydər Əliyevin ideyalarına söykənən xarici siyasət Dağlıq Qarabağ münaqişəsi ətrafında cərəyan edən hadisələrdə də öz bəhrəsini verməkdə davam edir. Azərbaycanın dünya miqyasında getdikcə artan siyasi və iqtisadi nüfuzu, beynəlxalq aləmdə baş verən proseslərə təsir imkanları bu gün bu problemin həllinə yeni, ədalətli baxışın formalaşmasını şərtləndirir. Təsadüfi deyil ki, həm BMT çərçivəsində, həm də ATƏT məkanında Azərbaycanın haqq səsinə dəstək verən ölkələrin sayı gündən-günə artmaqdadır. Bu, həm də iqtisadi

və siyasi tənəzzüldən xilas ola bilməyən Ermənistanla müqayisədə bəşəriyyətə müasir və mütərəqqi siyasi düsturlar təklif edən Azərbaycan dövlətinə olan münasibətin təzahürüdür.

Dünyada ən güclü hərbi blok sayılan NATO standartlarına uyğun müasir ordunun formalaşdırılması, onun ən yüksək texniki və hərbi avadanlıqla təchiz olunması da ölkə rəhbərliyi tərəfindən davamlı olaraq həyata keçirilən siyasi kursun təzahürüdür. Heç də təsadüfi deyil ki, dövlət müstəqilliyimizə təhlükə yarada biləcək istənilən maneəni dəf etməyə qadir olan qüdrətli Azərbaycan Ordusu məhz vaxtilə ölməz Heydər Əliyevin dahi uzaqgörənliklə araya-ərsəyə gətirdiyi hərbi məktəblərin və müəssisələrin imkanlarından səmərəli şəkildə bəhrələnməkdədir. Əlbəttə, məmnunluq yaradan faktdır ki, BMT-nin sülhməramlı qüvvələrinin tərkibində bir çox münaqişə bölgələrində - Kosovada, İraqda, Əfqanıstanda əsgər və zabitlərimizin döyüş hazırlığı təşkilatın rəhbərliyi tərəfindən dəfələrlə nümunə göstərilib.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, bütün bu uğurlar eyni zamanda möhkəm ideoloji təmələ bağlı olub zərgər dəqiqliyi ilə ölçülmüş düzgün siyasi kurs üzərində bərqərar olmuşdur. Daim öz xalqının dəstəyinə arxalanan ulu öndər Heydər Əliyevin banisi və lideri olduğu Yeni Azərbaycan Partiyası bu gün ümummilli liderin ideyalarını daşıyan və dönmədən həyata keçirən ən güclü siyasi qüvvə kimi formalaşmışdır. Elə bu baxımdan da Heydər Əliyevin ideyalarına sadiq və hazırda respublikada hakim siyasi lider olan Yeni Azərbaycan Partiyasının rolu və intellektual potensialı gündən-günə artmaqdadır. Bütün bunlar ilk növbədə ölkəmizi dünyanın inkişaf etmiş qabaqcıl dövlətləri sırasına çıxarılması üçün səfərbər olunub. Yarım milyondan artıq üzvü olan və ümumxalq partiyası sayılan YAP hər zaman xalqımızın əsas istinad nöqtəsinə çevrilməyi bacarıb. Ölkəmizdə keçirilən seçkilər bunu bir daha sübuta yetirib. Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi iştirak etdiyim ATƏT Parlament Assambleyasının son sessiyaların qurumun ən yüksək çinli rəhbərlərinin dilindən ölkəmizdə keçirilmiş 2010-cu il parlament seçkilərinin müasir dünya standartlarına tam uyğun gəldiyi və ölkədə demokratikləşmə prosesinə böyük bir təkan verdiyi barədə səslənmiş rəylər, düşünürəm ki, məhz bu həqiqəti ortaya qoyur.

İnkar etmək mümkün deyil ki, Azərbaycan xalqının rifahının yüksəldilməsinə, daxili sabitliyin qorunmasına və cəmiyyətin bütün sahələrində enerji, nəqliyyat, turizm, təhsil, səhiyyə və digər sahələrdə önəmli layihələrin həyata keçirilməsinə istiqamətlənmiş siyasət Heydər Əliyev ideyalarının tərkib hissəsidir. Bütün bu işlərdə ulu öndərin adını daşıyan fondun fəaliyyəti də xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanda hər il yüzlərlə yeni-yeni müasir tipli bağçaların, məktəblərin, səhiyyə ocaqlarının inşası və ya əsaslı təmiri məhz Heydər Əliyev Fondu tərəfindən maliyyələşdirilir. Azərbaycan Milli Məclisinin deputatı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bir tərəfdən Azərbaycan həqiqətlərini beynəlxalq arenada təbliğ edir, Heydər Əliyev irsinin öyrənilməsi sahəsində önəmli layihələr həyata keçirir, digər tərəfdən isə çoxşaxəli fəaliyyəti ilə Azərbaycanda modern cəmiyyətin qurulmasına öz dəyərli töhfəsini verir.

Beləliklə, düşünürəm ki, Heydər Əliyev ideyalarına söykənən xarici siyasət kursunun mahiyyəti Azərbaycanın daha təkmil bir dövlət kimi yeni və qüdrətli imicini və nüfuzunu formalaşdırmaqla yanaşı, həm milli-mənəvi dəyərləri, həm də müasirliyi özündə əks etdirən üçrəngli Azərbaycan bayrağının daha uca zirvələrdə dalğalanacağına əminlik yaradan başlıca amildir.

**“Xalq qəzeti”.**-2011.-11 dekabr.-N 274.-S.1-2.

## AZƏRBAYCANÇILIQ, AZƏRBAYCANŞÜNASLIQ VƏ ƏLİYEVŞÜNASLIQ

**Nizami CƏFƏROV,**
Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri,
Milli Məclisin komitə sədri,
AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, professor

**Hər hansı ideya və ya ideoloji sistem o zaman şüurlarda özünə möhkəm yer tuta, uzun zaman insanlığa xidmət edə bilir ki, cəmiyyət onu elm kimi qavrasın. İntellektual- ideoloji həyatın təcrübəsi göstərir ki, bunun üçün üç şərt vacibdir:**

1) İdyea və ya ideoloji sistem, bu və ya digər miqyasda, praktikadan irəli gəlməli, ona dayanmalıdır;
2) elmi təfəkkürün ümumbəşəri texnologiyaları əsasında qurulmalı, sözün geniş mənasında ənənəvi elmi dillə danışmalıdır;
3) humanist olmalı, cəmiyyətə, insanlığa xidmət etməlidir.

Azərbaycan xalqının ümummilli lideri, türk dünyasının və ümumən dünyanın böyük siyasi mütəfəkkirlərindən biri olan Heydər Əliyevin yarım əsrdən artıq bir dövrdə irəli sürdüyü, uğrunda mübarizə apardığı (və həyata keçirdiyi) ideyaların (əliyevçiliyin) bütöv, mükəmməl və sistemli bir elm (əliyevşünaslıq) səviyyəsinə qaldırılması üçün hər cür şərtlər (şərait) mövcuddur. Əliyevçilik ictimai təcrübədən irəli gəlməsi, milli olduğu qədər də ümumbəşəri elmi təfəkkür modelləri və ya sxemləri ilə ifadə oluna bilməsi və humanizmi, insanlığa xidmət etməsi, yəni elmə çevrilə bilmək imkanlarının genişliyi ilə diqqəti çəkir. İkincisi, ümummilli liderin müəllifi olduğu ideyalar illər keçdikcə daha da zənginləşir, ehtiva coğrafiyasını daha da genişləndirir və dünyanın siyasi- ictimai təfəkkür tarixində öz danılmaz yerini müəyyənləşdirir. Nəhayət, əliyevçiliyin elmi-metodoloji tədqiqi get- gedə daha ardıcıl xarakter daşımağa başlayır.

Etiraf etmək lazımdır ki, əliyevçilik yalnız müasir azərbaycançılıq olaraq qalmadı, eyni zamanda azərbaycançılığın bir ideologiya olaraq düzgün təfsirində həlledici rol oynadı.

Azərbaycan haqqında müxtəlif mənşəli, müxtəlif xarakterli mənbələrin verdiyi bu və ya digər dərəcədə elmi məlumatlar qədim dövrlərdən başlasa da, azərbaycanşünaslıq kifayət qədər mükəmməl bir elm olaraq XX əsrin 30-cu illərində formalaşmışdır. Azərbaycanşünaslığın meydana çıxması Azərbaycanda elmi təfəkkürün inkişafı ilə yanaşı (bəlkə də, daha çox) azərbaycançılıq dünyagörüşünün təşəkkülü ilə bağlı olmuşdur ki, bu da özünü milli-ictimai təfəkkürün müxtəlif sahələrində göstərmişdir. XIX əsrin sonu, XX əsrin əvvəllərindən etibarən azərbaycanlı mütəfəkkirlər türklük, müsəlmanlıq və müasirlikdən ibarət bir məmləkət barəsində düşünməyə (hətta döyüşməyə) başlamış, təsəvvürlərində yaratdıqları həmin məmləkəti - Azərbaycanı ilk dəfə 1918-1920-ci illərdə bütün reallığı ilə gördükdən sonra onların düşüncələri (və döyüşləri, mücadilələri) daha konkret, daha məqsədyönlü, daha elmi xarakter almışdır. Bununla belə, qeyd etmək lazımdır ki, haqqında söhbət gedən dövrdə azərbaycançılıq dünyagörüşü Azərbaycanda geniş yayılmış müxtəlif ideologiyaların ardıcıl təzyiqinə məruz qaldığı, olduqca gərgin ideya münaqişələri gedişində formalaşdığı üçün daxili ziddiyyətlərdən, yaxud metodoloji eklektikadan xilas ola bilməmişdir. XX əsrin 20-ci, 30-cu illərində, yəni azərbaycanşünaslığın bir elm olaraq konturlarının sürətlə müəyyənləşdiyi dövrdə ideoloji münaqişələr bu və ya digər dərəcədə aradan qalxsa da, vulqar sosiologizm, sovet "beynəlmiləlçiliyi" həmin elmin bir sıra əsas problemlərinin (xüsusilə etnogenez probleminin) düzgün həllinə imkan vermədiyi kimi, azərbaycançılıq dünyagörüşünün təşəkkülü prosesinə də mane olmağa başladı. Beləliklə, bir tərəfdən, milli-ictimai (intellektual) təfəkkür azərbaycanşünaslığın elmi əsaslar üzərində yüksəlməsini tələb edir, digər tərəfdən, siyasi-ideoloji şərait obyektiv araşdırmalara mane olur, elmi həqiqətləri müxtəlif "konsepsiyalar" arxasında gizlətməyə çalışırdı. XX əsrin 20-ci, xüsusilə 30-cu illərində azərbaycançılıq dünyagörüşünə özünəməxsus bir emosionallıq, romantik vüsət gəldi ki, bu, bizim fikrimizcə, həmin dünyagörüşün sosial-siyasi perspektivliliyini göstərirdi - azərbaycançılıq ideologiyasının banilərindən olan böyük Səməd Vurğunun yaradıcılığı, xüsusilə, məşhur "Azərbaycan" şeiri bunu təsdiq edir:

**El bilir ki, sən mənimsən,**
**Yurdum, yuvam, məskənimsən...**

Həm azərbaycançılıq dünyagörüşünün, həm də azərbaycanşünaslıq elminin XX əsrin 30-cu illərində müəyyənləşmiş əsas prinsipləri sonrakı onilliklərdə, demək olar ki, dəyişmədi, yalnız 70-ci illərdən müəyyən "etirazlar" doğurmağa başladı ki, bu "etirazlar" da müxtəlif formalarda təzahür edirdi. Ümumiyyətlə, keçən əsrin (və minilliyin) sonlarına qədər həm azərbaycançılıqda, həm də xüsusilə azərbaycanşünaslıqda mübahisəli məsələlər mübahisəsiz məsələlərdən müqayisə edilməyəcək qədər çox olmuşdur. Odur ki, bu barədə bəhs

edərkən əksəriyyətin ilk cəhddən qəbul edəcəyi fikirləri söyləmək nəinki çətin, hətta qeyri-mümkündür - olduqca müxtəlif mülahizələrlə, eyni fakt üzərində qurulmuş bir-birinə əks nəzəriyyələrlə qarşılaşmaq, həqiqəti məhz mübahisələrdən çıxarmaq lazım gəlir ki, bu da azərbaycanşünaslığın polemik xarakterli, əsasən problemlərdən ibarət bir elm olmasını şərtləndirir.

...Azərbaycanşünaslığın formalaşmasında türkoloqlar, iranşünaslar, qafqazşünaslar, semitoloqlar, demək olar ki, eyni dərəcədə iştirak etmişlər, ona görə də həmin elm sahələri üzrə mütəxəssislərin çox zaman biri digərini tamamilə inkar edən mülahizələri azərbaycanşünaslıqda sinkretik (və "beynəlmiləl") bir "sistem" təşkil edir.

Əlbəttə, beynəlmiləl, ümumbəşəri dəyərlərə hörmət hər bir xalqın mükəmməlliyini, mədəni səviyyəsinin yüksəkliyini göstərir. Bununla belə, hər hansı xalqı zorla beynəlmiləlləşdirmək ona heç bir "hüquq", yaxud nüfuz gətirməz, əksinə, həmin xalqı öz kökündən, tipologiyasından ayırıb dünya proseslərinin önündə gedənlərin kölgəsinə çevirər. Və XX əsrdə Azərbaycanda geniş yayılmış bir sıra kvazibeynəlmiləlçi konsepsiyalara əsaslansaq, onda gərək özümüzü konqlamerat bir etnik hadisə hesab edək. Tarix isə heç zaman belə bir şey yaratmamışdır.

Azərbaycanşünaslığın ən mühüm problemi, heç şübhəsiz, Azərbaycan xalqının mənşəyi (etnogenezi) problemidir ki, 30-cu illərdən başlayaraq o, müxtəlif şəkillərdə "həll edilmişdir" - türkoloqlar türk, iranşünaslar İran, qafqazşünaslar, bu və ya digər qeyd-şərtlə də olsa, Qafqaz (Alban) başlanğıcını əsas götürmüş, nəticə etibarilə mürəkkəb bir "metodoloji mənzərə" yaranmışdır.

Qədim dövrlərdən başlayaraq Azərbaycanda və həmhüdud regionlarda müxtəlif mənşəli etnoslar (qafqazlılar, iranlılar, türklər və b.) yaşayırlar - onlar öz dillərini, etnoqrafik xüsusiyyətlərini indiyə qədər qoruyub saxlasalar da, ölkədə aparıcı etnokulturoloji mövqe ilk orta əsrlərdən etibarən Azərbaycan türklərinə məxsusdur. Məsələ isə burasındadır ki, həmin türk etnosları Azərbaycana müəyyən bir dövr ərzində tədricən gəlib məskunlaşmış, xalq olaraq məhz burada (Azərbaycanda), qeyri-türk etnoslarının əhatəsində formalaşmışlar. Müasir Azərbaycan dilinin, xüsusilə şimal regionlarında hun-qıpçaq tayfa dillərinin elementlərinin mövcudluğu bunu təsdiq edir. Buraya həmin regionlarda bu günə qədər mühafizə olunan bir sıra qədim hun-qıpçaq antropoloji, etnoqrafik, etnopsixoloji göstəricilərini də əlavə etmək olar.

Türklər Azərbaycanda və həmhüdud regionlarda nə qədər böyük ictimai-siyasi nüfuza malik olsalar da, Qafqaz, İran və b. etnosları bilavasitə sıxışdırmadılar. Ümumiyyətlə, onlar Qərbdən Şərqə doğru yayıldıqları böyük bir dövrdə heç bir etnosa qarşı düşmənçilik münasibəti göstərməmiş, əksinə, özünü yerli hesab edən xalqlarla sıx əlaqələr yaratmağa çalışmışlar. Lakin hər yerdə olduğu kimi, Azərbaycanda da passionarlıq dövrünü artıq keçirmiş qeyri-türk mənşəli müxtəlif etnoslar özlərini nəinki türklərdən, hətta həmtayfalarından belə təcrid etməyə meyilli olmuşlar.

Azərbaycanda yaşayan qeyri- türk mənşəli müxtəlif etnoslar, xalqlar yalnız Azərbaycan türkcəsi əsasında deyil, eyni zamanda (və bəlkə də daha çox) Azərbaycan türklərinin tarixi birləşdiricilik missiyası əsasında ünsiyyətə girib Azərbaycan xalqını, Azərbaycan cəmiyyətini təşkil edirlər. Bu hadisə artıq kifayət qədər zəngin tarixə malikdir... Və həmin tarixə, onun uğurlarına qarşı çıxanların aqibəti göstərdi ki, Azərbaycan xalqı etnik tərkibcə mürəkkəb olsa da, kifayət qədər bütöv, mütəşəkkildir.

Lakin bir sıra etnik, mədəni problemlər vardır ki, onlar ardıcıl olaraq həll edilməli, həm Azərbaycan türklərinin, həm də Qafqaz, İran mənşəli etnosların etnoqrafiyasına, adət-ənənələrinə hörmətlə yanaşılmalı, milli münaqişə ocaqlarının yaradılmasına yol verilməməlidir. Müşahidələr göstərir ki, sivilizasiyanın yüksək səviyyədə inkişaf etdiyi regionlarda belə bu və ya digər dərəcədə narazı etnik hisslər müxtəlif formalarda münaqişələr törətməyə qadirdir.

Azərbaycanlılar, başqa sözlə, Azərbaycan türkləri, məlum olduğu kimi, Azərbaycan Respublikası ilə yanaşı, İranda, Türkiyədə, Rusiyada, Gürcüstanda və s. yerlərdə yaşayırlar. Belə bir faktı xatırlatmaq kifayətdir ki, İranda (Cənubi Azərbaycanda) yaşayan azərbaycanlılar Azərbaycan Respublikasının əhalisindən üç-dörd dəfə çoxdur, digər ölkələrdə daimi yaşayan azərbaycanlıların sayı isə yüz minlərlə, hətta milyonlarladır. Ümumiyyətlə, dünyada əlli milyona qədər azərbaycanlı, yaxud Azərbaycan türkü mövcuddur ki, onlar eyni bir etnik, kulturoloji tarixin hadisəsidir. Bununla belə, etiraf etmək lazımdır ki, əlaqəsi intensiv olmayan müxtəlif regionlarda, müxtəlif dövlətlərin ərazilərində yaşamış azərbaycanlıların etnik psixologiyasında, həyat tərzlərində, ictimai-siyasi dünyagörüşlərində, dillərində və s. müəyyən fərqlər yaranmağa başlamışdır. Bunlar xalqın, millətin bütövlüyünə mənfi təsir göstərən, onun etnik, kulturoloji kompleksini zədələyən hadisələrdir. Azərbaycan Respublikasının dünya azərbaycanlılarının birliyi uğrunda başladığı mübarizə, heç şübhəsiz, böyük ictimai-siyasi əhəmiyyətə, geniş perspektivə malikdir.

Azərbaycanşünaslıq nə dilçilik, nə ədəbiyyatşünaslıq, nə mədəniyyətşünaslıq, nə də tarixşünaslıqdır. Onun (azərbaycanşünaslığın) işi həmin elmlərin hər birinin, eləcə də bir sıra digər elmlərin faktlarından, nəticələrindən, ümumi müddəalarından istifadə etməklə Azərbaycan (və Azərbaycan xalqı) haqqında ümumi

elmi təsəvvür yaratmaqdan, Azərbaycanın (və Azərbaycan xalqının) dünyadakı universal mövqeyini müəyyənləşdirməkdən ibarətdir. Elə etnososial, etnokulturoloji əlamətləri müəyyənləşdirməkdən ibarətdir ki, onların məhz Azərbaycana (və Azərbaycan xalqına) mənsubluğu bir kompleks olaraq şübhə doğurmasın... Lakin bir məsələ də var ki, bütün bunlar Azərbaycanın (və Azərbaycan xalqının) mədəni-mənəvi, siyasi-ideoloji mənafeyinə xidmət etməlidir. Halbuki, bir sıra hallarda bu və ya digər etnos, xalq məhz həmin etnosu, xalqı "idarə etmək", onun daxili işlərinə qarışmaq, gələcəyini hansısa lobbi, yaxud missioner maraqları baxımından "həll etmək" üçün öyrənilir. Bu cür kvaziazərbaycanşünaslıq, yaxud antiazərbaycanşünaslıq böyük elmin tələblərinə cavab vermək iqtidarında olmasa da, müəyyən elmi- nəzəri, praktik problemlər yaradır ki, biz son illərdə belə problemlərlə dəfələrlə qarşılaşmalı olmuşuq. Məsələn, Azərbaycandakı etnik münasibətləri, dini problemləri, bir sıra sosial-iqtisadi məsələləri və s. öyrənib, ölkədə ictimai harmoniyanı pozmaq, etnososial destabilizasiya yaratmaq iddiasına düşmüş, hətta bəzi hallarda buna nail olmuşlar.

Sual olunur: azərbaycanşünaslığın metodoloji "qida mənbəyi" rolunda daha çox hansı elm sahəsi çıxış edir - türkologiya, iranşünaslıq, semitologiya, yaxud qafqazşünaslıq?

**Şübhəsiz, türkologiya!...**

Azərbaycan xalqının tarixi dərindən öyrəndikcə türkologiya azərbaycanşünaslığın nəinki metodoloji "qida mənbəyi"nə, bütövlükdə kontekstinə çevrilir. Və bizim fikrimizcə, azərbaycanşünaslıq getdikcə daha çox türkologiyanın üzvi tərkib hissəsi olacaqdır. Bununla belə, nə iranşünaslığı, nə semitologiyanı, nə qafqazşünaslığı azərbaycanşünaslıqdan ayrı təsəvvür etmək mümkün deyil. Azərbaycanşünaslığın elə problemləri vardır ki, həmin elm sahələrinin bilavasitə iştirakı olmadan keçinmək olmaz.

Ümumiyyətlə, türkologiya ilə yuxarıda haqqında söhbət gedən elm sahələrinin (iranşünaslıq, semitologiya, qafqazşünaslıq və s.) əməkdaşlığı ənənəvi xarakter daşıyır, yalnız azərbaycanşünaslıqla məhdudlaşmır. Bununla belə, təcrübə göstərir ki, həmin elm sahələri Azərbaycan dili, ədəbiyyatı, mədəniyyəti ilə türkoloji kontekstdən kənar olaraq "sərbəst" elmi nəticələr çıxararkən, bir qayda olaraq, ciddi səhvlərə yol verirlər. Məsələn, böyük Nizaminin yaradıcılığı ilə uzun müddət yalnız iranşünaslığın məşğul olması bunu göstərdi. Şairin yaradıcılığının qədim (ümum) türk mənbələri bütünlüklə diqqətdən kənarda qaldığından onun təbliğ etdiyi fəlsəfi-estetik ideyaların tarixi kökləri indiyə qədər müəyyənləşdirilməmiş qalmışdır. Qədim türk eposu, tanrıçılıq dünyagörüşü, Əl-Fərabi ət-Türkinin fəlsəfi görüşləri barədə aydın təsəvvürə malik olmayan bir iranşünas üçün Nizaminin poetikası, demək olar ki, anlaşılmazdır.

Azərbaycan elmi, mədəniyyəti orta əsrlərdə üç dildə - türk, ərəb və fars dillərində yaranmışdır. Bu isə o deməkdir ki, azərbaycanşünaslıqda türkologiya, semitologiya və iranşünaslıq birinci növbədə mətnşünaslıq xidməti göstərmək üçündür, qafqazşünaslığın bu baxımdan funksiyası xeyli məhdud olub, yalnız bir neçə mübahisəli "alban yazısı" üzərində düşünməkdən ibarətdir. Lakin nə semitologiya, nə iranşünaslıq, nə də qafqazşünaslıq Azərbaycan mənbələri üzərində işləyərkən mətnşünaslıq işindən kənara çox çıxmamalıdır. Müşahidələr göstərir ki, həmin sahələr öz funksiyasını "genişləndirib" mətnşünaslıq fəaliyyətindən kənara çıxarkən azərbaycanşünaslığa qeyri-elmi mülahizələr gətirir, onun elmi- metodoloji əsaslarını sarsıdır.

Bununla belə, azərbaycanşünaslığın elə sahələri vardır ki, orada türkologiya həlledici söz demək hüququna malik deyil-burada, hər şeydən əvvəl, Azərbaycan tarixinin qədim (türkləşənəqədərki) dövrü nəzərdə tutulur. Belə ki, xüsusilə e.ə. III-I minilliklərdə Azərbaycanda etnik münasibətlər, mədəniyyət, sosial-siyasi proseslər barədə mötəbər sözü həmişə qafqazşünaslar, iranşünaslar demişlər, daha əvvəlki dövrlər barəsində isə, son illərdə türkoloq-altayşünaslar daha çox danışmağa başlamışlar.

Azərbaycanın dövlət müstəqilliyi qazandığı, müasir dünya ilə əlaqələrinin yaranıb inkişaf etdiyi müasir dövrdə azərbaycanşünaslığın iqtisadi, sosioloji və politoloji aspektlərinin diqqəti daha çox cəlb etməsi ənənəvi problemlərin unudulması hesabına deyil. Azərbaycanşünaslığın bir elm kimi tədqiqat hüdudları genişlənir, problemləri daha çox sosial praktikanın tələblərinə uyğunlaşır, təhlil metodları inkişaf edib zənginləşir. Və nəticə etibarilə, ənənəvi problemlərə baxışın texnologiyası da təkmilləşir.

Azərbaycanda milli dövlət quruculuğu prosesi sürətləndikcə azərbaycanşünaslığın problemləri daha bütöv, kompleks halında, biri digəri ilə qarşılıqlı əlaqədə qoyulur ki, bu, həmin problemlərin əsaslı şəkildə həlli üçün geniş ideoloji imkanlar açır...

Azərbaycanşünaslıq yalnız elmi-nəzəri, yaxud akademik bir sistem deyil, həm də get-gedə daha geniş yayılmaqda, Azərbaycan Respublikasının dövlət siyasətinə, dünyanın müxtəlif ölkələrində, təxminən 500 min kvadratmetrlik ərazisi olan tarixi Azərbaycanda məskunlaşmış azərbaycanlıların dünyagörüşünə çevrilməkdə olan azərbaycançılıq ideologiyasının elmi- metodoloji əsasıdır.

Son 15 ildə Heydər Əliyev haqqında yazılmış yüzlərlə publisistik, bədii və s. kitabları, minlərlə bu tipli məqalələri nəzərə almasaq (əslində, həmin əsərlərdə də müəyyən elmi mülahizələr tapmaq mümkündür) əliyevşünaslığın bugünə qədərki əsas mənbələrini aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1) Ümummilli liderin öz əsərləri, xüsusilə nəşri mütəmadi davam edən "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyi ;

2) elm adamlarının (filosof, tarixçi, hüquqşünas, iqtisadçı, filoloq, sənətşünas və b.) əliyevçiliyə həsr olunmuş əsərləri, xüsusilə akademik Ramiz Mehdiyevin fundamental araşdırmaları;

3) ictimai-siyasi xadimlərin, bir qayda olaraq, əliyevçiliyə bütövlükdə, yaxud ümumi şəkildə baxmaq təcrübəsi verən yazıları;

4) bu və ya digər elm sahələrinə, xüsusilə ictimai elmlərə həsr olunmuş monoqrafiya, yaxud dərsliklərdə əliyevçiliklə bağlı istinadlar, mülahizələr;

5) Heydər Əliyevin yaratdığı yeni Azərbaycan Partiyasının keçirdiyi müxtəlif səciyyəli konfranslarda edilmiş məruzələr, çıxışlar və s.

Etiraf etmək lazımdır ki, dahi ictimai- siyasi xadim, dövlət qurucusu və mütəfəkkir nə qədər böyük ideyalar müəllifi olduğunu bilsə də, sağlığında həmin ideyaların elmi- metodoloji baxımdan işlənməsi, ümumiləşdirilməsinə çalışmamış, özünəməxsus bir təvazökarlıqla bu zəruri məsələni gələcəyin (və gənc nəslin) öhdəsinə buraxmışdı. Ona yaxşı məlum idi ki, yalnız həyata keçmiş ideyalarının deyil, gələcəkdə həyata keçəcək ideyalarının da dərindən öyrənilməsi milli (və ümumbəşəri) zərurətə çevriləcəkdir. Və onu da etiraf etmək lazımdır ki, Heydər Əliyevin intellektual- elmi dühasına yüksək qiymət verən Azərbaycan alimləri keçən əsrin 90- cı illərinin ortalarından başlayaraq, əliyevşünaslığın fundamentində dayana biləcək dəyərli fikirlər söyləmiş, onun yeni keyfiyyətdə müəllifi olduğu azərbaycançılıq ideologiyasının analitik təhlilini verməyə çalışmışlar. Həm Azərbaycan əliyevşünalığının inkişafında, həm də onun dünya miqyasına çıxmasında ümummilli liderin vəfatından sonra fəaliyyətə başlamış Heydər Əliyev Fondu böyük işlər görmüş, hətta bu sahədəki genişmiqyaslı fəaliyyətlərin koordinasiyası təcrübəsini də vermişdir. Və heç şübhəsiz, Heydər Əliyev Fondunun həmin təcrübəsi yaxın zamanlarda öz işinə başlayacaq Heydər Əliyev Mərkəzi üçün çox faydalı olacaqdır.

Bizim fikrimizcə, əliyevşünaslığın strukturunu, əsasən, aşağıdakı məsələlər təşkil edir ki, onların hər biri ayrıca tədqiqat sahəsi olub çoxlu sayda mütəxəssislərin birgə fəaliyyətini, əməkdaşlığını tələb edir:

**I**

**Heydər Əliyevin elmi tərcümeyi- halı.**

**II**

**- Sovet dövründə Azərbaycan Respublikasının iqtisadi, sosial- siyasi və mədəni-mənəvi inkişafı uğrunda mübarizəsi;**
**- milli azadlıq və dövlət müstəqilliyi uğrunda mübarizə (1988- 1993);**
**- milli (və müstəqil) dövlət quruculuğu uğrunda mübarizə (1993- 1997);**
**- milli dövlətçiliyin möhkəmləndirilməsi uğrunda mübarizə (1997- 2003).**

**III**

**- Heydər Əliyev və Azərbaycanın dünyaya inteqrasiyası, yaxud xarici siyasəti;**
**- Heydər Əliyev və Azərbaycanın öz ərazi bütövlüyü uğrunda mübarizəsi;**
**- Heydər Əliyev və türk dünyası.**

**IV**

**- Tarixşünaslıq görüşləri;**
**- hüquqşünaslıq görüşləri;**
**- iqtisadi görüşləri;**
**- sosioloji görüşləri;**
**- mədəniyyətşünaslıq görüşləri;**
**- dilçilik görüşləri;**
**- elmi- pedaqoji görüşləri və s.**

**V**

**- Heydər Əliyevin siyasətçi üslubu;**
**- Dövlət idarəçisi üslubu;**
**- Natiqlik məharəti.**

**VI**

**- Heydər Əliyevin ictimai- siyasi xadim üslubunun milli və ümumbəşəri kökləri, mənbələri;**
**- Azərbaycanda Heydər Əliyev məktəbi; miqyası, üslub rəngarəngliyi;**
**- Heydər Əliyev idarəçiliyi, xüsusilə dövlət quruculuğu təcrübəsinin davamı.**

**VII**

**- Müasir mərhələdə (2003- cü ildən sonra) Azərbaycanda Heydər Əliyev ideyalarının həyata keçirilməsi prosesi;**

**- Heydər Əliyev ideyalarının inkişafı;**

**- İlham Əliyevin idarəçilik, dövlət (və millət) quruculuğu fəaliyyəti: ənənə və novatorluq.**

**VIII**

**- Əliyevçilik Azərbaycan ictimai- siyasi fikir tarixinin üzvü tərkib hissəsi kimi;**

**- əliyevçilik müasir dünya ictimai- siyasi, ideoloji fikir texnologiyaları kontekstində;**

**IX**

**Əliyevçiliyin metodoloji məsələləri.**

**X**

**Əliyevşünaslığın təbliğat və tədris- metodika məsələləri.**

Bu sahələrin hər biri üzrə son on ildə müəyyən əsərlər yazılmış, maraqlı mülahizələr söylənmiş, hətta müəyyən ümumiləşdirmələr aparılmışdır, lakin ümummilli liderin, Azərbaycanın dünyaya verdiyi təfəkkür (və əməl) dahisinin gördüyü tarixi işlər, irəli sürdüyü (və həyata vəsiqə verdiyi) ideyalarla müqayisədə bunlar hələ ancaq başlanğıc, ilkin uğurlu addımlar sayıla bilər. Nəzərə alsaq ki, əliyevşünaslığın (və əliyevçiliyin) bir sıra əsas müddəaları hələ də orta məktəblərin, universitetlərin tədris proqramlarında tələb olunan səviyyədə ehtiva olunmamış, regionlarda kifayət qədər yüksək zövqlə tikilmiş Heydər Əliyev muzey-mərkəzlərinin təbliğat arsenalına daxil edilməmiş, müəyyən uğurlu cəhdlərə baxmayaraq dünyanın elmi-ictimai fikir, intellekt mərkəzlərinə çatdırılmamışdır və s., onda nəinki görüləcək işlərin, hətta görülmüş işlərin belə metodiki xarakterinə, metodoloji səviyyəsinə, cəmiyyətin, xüsusilə gənclərin dünyagörüşünə təsir mexanizmlərinə hər dəfə yenidən baxmaq lazım gəlir. Dünyanın qloballaşdığı, ideya- fikir alternativliyinin mövcud olduğu və hər sahədə mövqelərin tez- tez dəyişdiyi dövrdə bütöv bir millətə azadlığın (və tərəqqinin) üfüqlərini açmış ideyaların mühafizəsi, geniş miqyasda ictimai elmi dərki olduqca zəruridir.

Zənnimizcə, əliyevçilik ən azı aşağıdakı üç kontekstdə öyrənilməlidir:

1) Böyük liderin, dövlət xadiminin siyasi tərcümeyi-halı kontekstində;

2) dövrün hadisələri kontekstində;

3) Azərbaycanın gələcək taleyi kontekstində.

Lakin həmişə nəzərə almaq lazımdır ki,həmin kontekstlər bir-biri ilə sıx əlaqədədir, biri digərində ehtiva olunur, belə ki, Heydər Əliyevin siyasi tərcümeyi-halı dövrün hadisələrindən, bu hadisələrlə birlikdə Azərbaycanın gələcək taleyindən ayrılmazdır. Və onu da nəzərə almaq lazımdır ki, əliyevçilik hərəkətdə olan azərbaycançılıqdır - xalqımızın və dövlətçiliyimizin ən yeni tarixinin (və perspektivlərinin) ideologiyasını verməklə əvəzsiz metafizik dəyər daşıyır... Bununla yanaşı, əliyevşünaslığın bir problemi də dövrün müxalif ideyalarının, daha doğrusu, iddialarının öyrənilməsindən ibarətdir ki, həmin problem diqqətdən kənarda qalarsa, əliyevçiliyin hansı mübarizələr mühitində formalaşması kimi mühüm məsələ unudular.

Heç də o qədər kiçik olmayan problemlərdən biri də elm adamlarının əliyevşünaslığın

a) milli və ümumbəşəri;

b) humanist və ya demokratik;

c) fərdi və ya ictimai

məzmununu Azərbaycan cəmiyyətinin anlayacağı bir dillə çatdırmaq lazımdır. Elmi-intellektual mühitimizin adət etdiyi kanonlarla, xüsusilə marksist-metodoloji texnologiyalarla əliyevşünaslığı dərk (və izah) etmək mümkün olmayacaqdır. Bu istiqamətdə də akademik Ramiz Mehdiyevin təklif etdiyi üsullara önəm vermək ehtiyacı hiss olunur...

Əlbəttə, əliyevşünaslığın bir elm kimi inkişafı Azərbaycanın ictimai- siyasi fikir tarixinin müasir mərhələsi olan əliyevçiliyin bir ideologiya kimi inkişafına istinad edir.

**"Xalq qəzeti".-**2011.-11 dekabr.-N 274.-S.3.

# HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİ VƏ ÜMUMMİLLİ İDEALLARIMIZ

**Ramiz QASIMOV**
Filologiya üzrə fəlsəfə doktoru

«Qədim Şərq filosofları deyirdilər ki, «şəxsiyyət xalqın məşəlidir, onsuz irəliyə yol yoxdur» - hörmətli Naxçıvan Muxtar Respublikası Ali Məjlis Sədrinin gətirdiyi bu hikmətamiz sitatda ümummilli liderimiz Heydər Əliyevin fövqəl və təkrarolunmaz bir şəxsiyyət olaraq səciyyəsi özünü mükəmməl şəkildə ifadə edir. 1923-jü ilin 10 mayında böyük elm, siyasət və ijtimai xadimlər diyarı olan Naxçıvanda dünyaya göz açıb, dünyaya xoşbəxtlik qədəmlərini basan Heydər Əliyev öz doğuluşu ilə erməni qəddarlığının nəticəsində həyatları alt-üst olmuş Əlirza kişi ilə İzzət arvadı sevindirmişdisə, «ömrünün qalan hissəsi» ilə bütün Azərbaycan xalqına həsr etməklə xalqı sevindirmişdi. «Hamı kimi doğulsa da, hamı kimi yaşamayan» ümummilli lider Heydər Əliyev bütün varlığı , zəkası və həyatı ilə sanki xalqına xidmət etmək üçün Tanrının bir mərhəməti və mücdəsi, mükafatı idi. O öz fəaliyyəti, örnək və dəyərləri ilə peyğəmbərlik missiyası həyata keçirmək üçün Azərbaycan xalqının taleyinə bəxş edilmişdi. Başı bəlasız keçməyən Azərbaycan xalqı üçün elə bil canı və qanı qədər sevdiyi xalqı, vətəni – Azərbaycan üçün ölməyə, özünü bütövlüklə həsr etməyə hazır Heydər Əliyev doğulmuşdu. Heydər Əliyev o şəxsiyyətlərdən idi ki, onun bir insan, şəxsiyyət olaraq doğuluşu xalqının taleyi tlə bağlı idi: uşaqlıq dostu, vaxtilə rəssamlıq istedadı ilə şəklini çəkdiyi … xanımın da dediyi, xatırlatdığı kimi, Heydər Əliyev lap uşaqlığından:- «Mən böyüyəndə böyük adam olajağam. xalqıma xidmət edəcəyəm»- deyə özünün uşaqlıq ideallarını ifadə edərmiş. Ümummilli liderimizin şəxsiyyət olaraq böyüklüyü və qüdrəti həm də onda idi ki, o, ideallarını gerçəkləşdirməyə yetərli hünər göstərərmiş, xalqına nəinki artıqlaması ilə xidmət etmiş, hətta özünü bütövlükdə həsr etmişdi. Atalarımızın dediyi kimi: niyyətin hara, mənzilin ora. Ulu öndər Heydər Əliyev uşaqlığından daşıdığı ideallara doğru özünü bir şəxsiyyət olaraq iddia səviyyəsini ifadə edən və özünü bu ideallara həsr edən qüdrət ifadəsi bir insan idi. Onun şəxsiyyəti xalqımızın ümummilli məsələlərinin təcəssüm və hərəkət xəritəsidir. Ümummilli liderimiz öz şəxsiyyəti ilə vətənçilik, vətəndaşlıq, azərbaycanlılıq və azərbaycançılıq kimi vajib ümummilli xarakterin ideal daşıyıcısıdır. Bu mənada Heydər Əliyev siyasi məktəbini keçmiş çox hörmətli Ali Məclis Sədrinin dediyi kimi: «Xalqlar azad, firavan həyatı üçün belə şəxsiyyətlərə borjludur. O şəxsiyyətlərdən biri də ümummilli lider Heydər Əliyevdir. Azərbaycanı janı qədər sevən, ürəyi daim öz xalqının səadəti və xoşbəxtliyi uğrunda döyünən, ölkəsini azad, müstəqil görmək istəyən, yeri gələrsə, vətəninin, xalqının yolunda həyatını qurban verməyə hazır olan bu dahi insanın ömrünün hər anı nəsillərə örnək olacaq canlı salnamə, vətənpərvərlik və zəngin dövlətçilik tarixidir». Ümummilli liderimiz bütün bizlər üçün vətəndaşlığın və azərbaycanlılığın etalonu, meyarı, ölçüsü, nümunəsidir. Onun vətəndaşlıq nümunəsi böyük təlim-tərbiyə mənbəyidir. Təsadüfi deyilmir ki, Heydər Əliyev ən ideal vətəndaş, bütün zamanların ən böyük azərbaycanlısı və Azərbaycançısıdır. Azərbaycanlılığın və vətəndaşlığın əsl mahiyyət və qayəsini onun həyat, fəaliyyət və fikir nümunəsindən alıb öyrənirik. Ümummilli liderimiz Heydər Əliyevin həyatı, fəaliyyəti və əməli Azərbaycançılığın kitabı, onun sevgisi, fikirləri isə nəzəriyyəsi – ayələridir. Heydər Əliyev vətənpərvərliyin, Azərbaycançılığın mənəviyyat məktəbidir. Bu mənada hər bir azərbaycanlı nəsli Azərbaycançı vətəndaşlığı öyrənmək, mənimsəmək üçün ulu öndərimizin dərin həyat təcrübəsindən doğan qənaətlərini, qanun və hökmlərini bilməli, mənimsəməlidir.

Əlbəttə, hər şeydən əvvəl bunu bilmək zəruridir ki, ideal vətəndaşlıq bütöv, azad vətənin və milli birliyin təcəssümüdür. Dərin vətəndaşlığın şərtləri vətən və xalq bütövlüyünün sərhədləridir. Bu mənada ulu öndərimizin vaxtı ilə dediyi: “Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, vətənin bütövlüyü, xalqın birliyinin təcəssümü olmuşdur”, - sözləri elə dahi rəhbərin özü haqqında da deməyə, şamil etməyə imkan verir ki, onun vətənimizin bütövlüyü, azadlığı, dövlətçiliyi yolundakı qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, vətənin bütövlüyü, xalqın birliyinin təcəssümü olmuşdur. Heydər Əliyev vətəndaşlığı bu bütövlüyün və birliyin təcəssümündən doğaraq azərbaycanlılığın mahiyyətini və Azərbaycançılığın qayəsini müəyyən edir: “Azərbaycanlılar! Harda olursan ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan

xalqının bugünü və gələcəyi haqqında düşünməlisən!" Bir ingilis dühası deyirdi ki: "Hər bir ingilis bilir ki, onun vətəni, dini və ailəsi ondan nə istəyir" və bununla da ingilisliyin mahiyyətini şərh etmiş olurdu. Ümummilli liderimiz Heydər Əliyev isə öz dərin, yığcam ibarəsi ilə: "Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır", - deyərək, azərbaycanlılığın məğzini ifadə edirdi.

Böyük Azərbaycan mücahidi Şeyx Məhəmməd Xiyabani deyirdi: "Mənliyini sevmək təbii və ümumi bir qanundur. Hər bir adam, hər bir canlı bəşər özünü başqasından çox sevər. Buna görə də bir cəmiyyət öz rifah halını yaxşılaşdırmağı başqasından gözləməməlidir. Öz şəxsiyyətinə hörmət etmək, ona inanmaqla, mənliyini sevməklə bir sırada qoyulmalıdır. Çox təəssüf olsun ki, biz öz qədir və qiymətimizi çox az bilmiş, özümüzdə olan mənlikdən xəbər tutmamışıq. Xalqlar da bu əzəməti, mənəvi qüvvəni, mənliyi və öz varlığına etimadı üzə çıxarnaqla tərəqqi və inkişafa nail ola bilərlər. Azad və müstəqil olmaq istəyən bir xalq öz həyatına və ictimai məsələlərə laqeyd qala bilməz. Bir xalqın şərafəti üçün birinci şərt onun müstəqil olmasıdır. Müstəqil olmayan bir xalqın əzmi və hörməti yoxdur. xalqın istiqlaliyyətini onun əxlaqi fəziləti saxlaya bilər. Hər bir xalqın istiqlaliyyətini qoruyan onun mərdlik və şücaətidir". Elə bu baxımdan da zamanlar üstü dahi, ümummilli liderimiz, bütün dövrlərin ən böyük azərbaycanlısı və Azərbaycançısı Heydər Əliyev vətənə, elə, müstəqilliyə sevgi ilə daim yaşayaraq bütün məhrumiyyətləri öz böyük şəxsiyyəti və qırılmaz iradəsi ilə aşaraq həmişə Azərbaycanın azadlığı, bütövlüyü və dövlətçiliyi uğrunda mübarizə aparmış, ideal vətəndaşlıq, vətənpərvərlik nümayiş etdirmişdir. Buna görə də dahi lider hər bir azərbaycanlı vətəndaşın qarşısında ən böyük vəzifə və məqsədi, böyük təcrübənin və müdrikliyin qənaəti olaraq müstəqillik, azadlıq və bütövlük üzərinə vətəndaşlığın və vətənpərvərliyin düsturunu belə müəyyənləşdirmişdir: "Hər bir vətənpərvər adam millətini, xalqını sevən hər bir azərbaycanlı Azərbaycanın müstəqilliyinin daimi, dönməz olması üçün səy göstərməlidir. Torpağımızı, vətənimizi, müstəqil Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü qorumaq ən şərəfli vəzifədir və bu vəzifəni həyata keçirmək hər bir Azərbaycan vətəndaşının borcudur. Azərbaycanlılar! Azərbaycan Respublikasının bu gününü və gələcəyini qoruyun!"

Vətənpərvərliyi insanda yüksək qiymətləndirən, əsas, ən böyük mənəvi dəyər və zənginlik hesab edən ümummilli lider: - "Vətənpərvərlik hər bir insanın daxilindəki duyğularıdır. Əgər bu yoxdursa, o insan mənəviyyatsızdır", - deyərək, vətənə, milli soykökə bağlılığı ən ali mənəvi dəyər kimi bütün insan ömrünün mənası, həyatın, yaşamın qayəsi, vətəndaşlığın ideal ifadəsi hesab edirdi və mətləbi vətənə, vətəndaşlığa, Azərbaycançılığa gətirib çıxarırdı. Azərbaycan bir vətən kimi müqəddəs mənasını bu böyük dahinin fikir və nümunəvi ideal sevgisində tapırdı. "Bizim hamımızın bir vətəni var – bu Azərbaycandır. Hamımız bu torpaqda yaşayırıq – bu Azərbaycan torpağıdır. Azərbaycan torpağının hər guşəsi hər birimiz üçün müqəddəs yerdir. Azərbaycan bütün dünya azərbaycanlılarının tarixi vətəni, doğma ata-baba ocağıdır. Dünyanın hansı ölkəsində, hansı yerində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı hiss etməlidir ki, onun Azərbaycan kimi vətəni vardır!" Bundan başqa ümummilli liderimiz: - "Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir", - deyərək: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" öyüncəkliyini, milli qürur hissini ifadə etmiş, Azərbaycan nəsillərinə vətəndaşlıq və vətənpərvərliyin ən böyük nümunəsini, ən ideal, dəyərli sözünü miras qoymuşdur. "Hər bir insan ilk növbədə anasını, vətənini, torpağını, millətini sevməli, bu hisslərlə yaşamalıdır. Vətənini, torpağını, dövlətini, öz müstəqil Azərbaycanını qorumaq öz ata-anasını qorumaq deməkdir, evini qorumaq deməkdir. Xalqımızın, Vətənimizin, Respublikamızın taleyi hər bir insanın taleyinə çevrilməlidir" hikmət dərsləri ilə vətənpərvərliyin məzmununu ifadə etmiş, onun iman dolu sözlərini yazmışdır. Ümummilli liderimiz habelə yaranmalı olan vətəndaş həmrəyliliyini müstəqilliyimizin və ərazi bütövlüyümüzün rəhni hesab edərək: - "Müstəqilliyimizi daimi etmək, ərazilərimizi bütün təcavüzlərdən – bugünkü və gələcək təcavüzlərdən qorumaq üçün cəmiyyətimizə, xalqımıza, ölkəmizə milli birlik, mənəvi həmrəylik, vətəndaş həmrəyliliyi lazımdır", - deyirdi.

Dahi rəhbərin bütün həyatı və fəaliyyətində olduğu kimi zəngin hikmət müdriklik dolu fikirlərində də Azərbaycan müqəddəs vətən, iman, güman, səcdə yeri, qibləgah, səcdəgahdır. Bu böyük insanın, əvəzolunmaz qüdrətli xarakter və şəxsiyyətin məzmununda, onun sərhədləri və mənəvi miqyasında, idealları və fəaliyyət təhrikində müstəqilliyi əbədi və dönməz olan bütöv, böyük Azərbaycan özünü parlaq surətdə təcəssüm etdirir.

Onun idealları və şəxsiyyəti kimi, yaratdığı müstəqil Azərbaycanın siyasi kursu da böyük Azərbaycanın təməli və qarantıdır. Böyük Azərbaycan bu günün, bəlkə sabahın da gerçəkliyi deyil, çünki bu gün Azərbaycana və onun müstəqilliyinə zərbə vurmaq istəyən super siyasi qüvvələr heç də az deyil. Azərbaycanın Qafqazda qüdrətli və nəhəng bir dövlət olmasına qarşı siyasi müqavimətlərə baxmayaraq inkişaf edir, güclənir və nüfuzunu dərinləşdirir. Unutmamalıyıq ki, biz dünyanın 60-70 milyonluq qədim dövlətçilik ənənələrinə malik bir xalqıyıq. Bu mənada ümummilli liderimizin həyatı və fəaliyyətinin istiqamətləndiyi böyük Azərbaycan idealı hər bir azərbaycanlının hərəkətə gətirəcəyi ən ümdə, vacib, gündəlik və tarixi bir vəzifədir. Bu gün məkan olaraq mövcud olmasa da, tarixin və zamanın tanıdığı bu ideal gələcəyin zəruri gerçəkliyidir. Azərbaycanı həqiqi mənada sevmək və sevdirmək, bütöv, müstəqil və böyük Azərbaycan idealı ilə yaşamaq və onu mənəviyyatında gələcəyə daşımaq, təlqin və təbliğ etmək ümummilli liderin ən böyük örnəyi idi. «Qüdrətli hökmdarlar dövlətləri yaradır, qoruyur, zəif, səriştəsiz hökmdarlar isə dağıdırlar» (Olcas Süleymanov). Bu mənada ümummilli lider Heydər Əliyev konstruktiv-qurucu şəxsiyyət idi. Öz xarakterik keyfiyyətləri ilə də ümummilli liderimiz tarixi xidmətləri və fəaliyyət miqyası ilə tariximizin bir çox şəxsiyyətlərindən ucada dayanır. Səmimi surətdə demək olar ki, o, şəxsiyyətlər içərisində fövqəl şəxsiyyətdir. Yoxdan Azərbaycan yaratmaq və azərbaycanlı millətini formalaşdırmaq bu böyük şəxsiyyətin unikal xidmətlərindən biri, bəlkə də başıdır. Məncə, Heydər Əliyev şəxsiyyəti özündə açıq və ya gizli şəkildə böyük Azərbaycan idealını daşımaqla onun xəritəsi, ideya, fikir mövcudluğu, təcəssümüdür. Bu mənada Heydər Əliyevin ömür yolu, həyat fəaliyyəti və fikir ümmanında Vətən qibləsinə durub Azərbaycan adlı Tanrıya səcdə gedən, iman dolu sözlərini inamla ifadə edən vətəndaşın ibadətini – namazını görürük. Nəsillərə bunu mənimsətmək Heydər Əliyevçiliklə Azərbaycançılığı, vətənə, xalqa iman bəsləməni, azadlığa baş qoymanı mənimsətmək təhsil, təlim və tərbiyə sistemimizin əsas məğzi, mənası olmalıdır.

Ümummilli liderimiz özü böyük mənəviyyat sahibi olduğu kimi onu yetişdirən Azərbaycan mənəvi dəyərlərinə də həmişə ehtiram bəsləmiş, çox böyük qiymət verərək bütün gənc nəsillərə də örnək tövsiyə etmişdir. Azərbaycan xalqının bütün mənəvi zənginliyini dərin hörmətlə sevən və himayə edən dahi lider yeni nəsillərin böyüməsi və tərbiyə olunmasında da bu dəyərləri ilk əsas şərt olaraq qəbul etmişdir. “Biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır”, - deyən ümummilli lider bu mənəviyyata sahib olmanı vətənimizin tarixinə, mədəniyyətinə, incəsənətinə, əxlaq və dəyərlərinə yiyələnməkdə görür, azərbaycanlılığı, Azərbaycançılığı, vətəndaşlığı bu zəngin mənəviyyatın ana əxlaqı kimi qəbul edir və özü də bu əxlaqın ən mükəmməl təcəssümünü, canlı heykəlini yaradırdı.

Ümumiyyətlə, ümummilli liderimiz Heydər Əliyev öyrənilməli çox böyük bir dünyadır. Ancaq bir şey çox sadə, çox bəsit olaraq özünü ifadə edir ki, bu dünyanın yerləşdiyi yer Azərbaycan, həyat yolu, yaşam mənası isə Azərbaycançılıqdır... Olcas Süleymanovun dediyi kimi: «XX əsrin hər bir görkəmli şəxsiyyətinə XXЫ yüzillikdə də böyüklük mərtəbəsində qalmaq müyəssər olmamışdır. Bu yalnız o şəxsiyətlərə nəsib olmuşdur Ki, …xalqlar arasında ilgilər qırılan çağlarda zəka ucalığını, iradə, xarakter qüdrətini saxlamış və faciəvi şəkildə parçalanan məkan və zamanların «yarımçıqlıqlarını» birləşdirməyə çalışmışlar. Avrasiyada belə şəxsiyyətlər çox az idi. Birincilər sırasında Heydər Əliyevin – (parçalanmış) zəmanəmizin qəhrəmanının adını çəkməyə haqqımız var».

**“Olaylar”.-**2011.-13 dekabr.-№214.-S.13

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MİLLİ İNKİŞAF SİYASƏTİ: XARAKTERİSTİKASI, ƏSAS VƏZİFƏLƏRİ VƏ TƏLƏBLƏRİ

**Əli HƏSƏNOV,**
Azərbaycan Respublikası Prezidenti Administrasiyası
İctimai-siyasi məsələlər şöbəsinin müdiri

**Hər bir dövlətin daxili və xarici vəziyyətini, milli maraq dairələrini və onların təminatını, beynəlxalq aləm və region ölkələri ilə münasibətlərinin taktikasını, vəzifələrini, yollarını, vasitələrini və ehtiyatlarını, onu əhatə edən geosiyasi subyektlərin hərəkətlərini və buna müvafiq olaraq geosiyasi davranışını müəyyən edən Milli İnkişaf Strategiyası olur. Bu strategiya ölkənin həyata keçirdiyi praktiki daxili və xarici siyasətin, ölkədaxili ictimai-siyasi, milli-etnik, sosial-dini sabitliyin, yaxın və uzaq ölkələrlə geosiyasi münasibətlərin davamlı, təhlükəsiz inkişafını təmin edən əsas vasitədir.**

Milli İnkişaf Strategiyası bir-biri ilə eyni statusda və dəyərdə olan milli inkişaf və milli təhlükəsizliyin (daxili və xarici) əsas ölçüləri və tələblərini əks etdirir, hər iki sahə üzrə ayrıca konsepsiyanın yaradılması və həyata keçirilməsini bir vəzifə kimi qarşıya qoyur.

Milli İnkişaf Strategiyası ölkənin xarici aləmdən qaynaqlanan geosiyasi, geoiqtisadi və hərbi-geostrateji vəziyyətini, daxili iqtisadi, ictimai-siyasi və mənəvi inkişafını, spesifik xüsusiyyətlərini və s. məsələləri nəzərə almaqla, ümumən:

milli inkişafın və digər strateji vəzifələrin hərtərəfli elmi tədqiqini, əsaslandırılmasını, onların təmin olunması yollarının, vasitə və ehtiyatlarının tapılmasını;

ölkənin milli inkişaf və təhlükəsizlik konsepsiyasının hazırlanması və bu əsasda praktiki siyasətinin formalaşdırılmasını, onun əsas vəzifə və tələblərinin müəyyən edilməsini;

ölkənin milli inkişafı və təhlükəsizlik mühitinin - müstəqillik, ərazi bütövlüyü, suveren idarəçilik, hərbi-strateji və sərhəd təhlükəsizliyinin, iqtisadi, siyasi, sosial-mədəni, informasiya, ekoloji inkişafın vacib tələblərinin öyrənilməsi və təmin edilməsi taktikasının hazırlanmasını;

daxili və xarici siyasətin əsas tələblərinin, daxili miqrasiya, təbii ehtiyat, əmək insan və s. resurslarının səmərəli istifadəsi, qorunması, tənzimlənməsi və idarə edilməsi kimi vacib geosiyasi vəzifələrin əsaslandırılması və təminatı yollarının təklif edilməsini;

ölkənin milli inkişafının və milli təhlükəsizlik mühitinin davamlı sabitliyinin, bu sahədə yürüdülən dövlət siyasətinin səmərəliliyinin, dayanıqlığının və müvəffəqiyyətinin təmin edilməsini;

dövlətin və ictimai həyatın milli, hərbi, sərhəd, iqtisadi, sosial, informasiya, ekoloji, ərzaq, enerji, nəqliyyat-kommunikasiya kimi həyati əhəmiyyət kəsb edən strateji sahələrində praqmatik milli inkişaf və təhlükəsizlik maraqlarının əsaslandırılması və təmin edilməsini;

hərbi və sərhəd təhlükəsizliyi Doktrinasının hazırlanmasını;

milli maraq ölçülərinin, milli təhlükəsizlik siyasətinin, onun əsas vəzifələrinin müəyyən olunması və mexanizmlərinin yaradılmasını;

iqtisadi, enerji, resurs, ərzaq, nəqliyyat, infrastruktur, ekologiya, informasiya kimi sahələrin milli strategiyasının, təhlükəsizlik konsepsiyasının hazırlanması və həyata keçirilməsini;

ölkənin geosiyasi kodunun, beynəlxalq və regional təhlükəsizlik sahəsində müvafiq xarici siyasət konsepsiyasının yaradılmasını və s. ehtiva edir.

***

Azərbaycan xalqının müstəqillik yolu, milli inkişafı və dövlət quruculuğu prosesi bir sıra mühüm daxili və xarici amillərlə şərtlənir. Azərbaycan xalqı özünün siyasi, iqtisadi, mədəni-intellektual potensialından və SSRİ-nin dağılması ilə əlaqədar yaranan əlverişli tarixi şəraitdən istifadə edərək 1991-ci ildə öz milli iradəsini ortaya qoydu, yenidən istiqlal haqqına qovuşaraq müstəqil dövlətini bərpa etdi və BMT üzvü olan müstəqil dövlətlər sırasına qoşuldu. Bu hadisə Azərbaycan xalqının indiyə qədər malik olduğu ən böyük tarixi nailiyyət hesab olunur. Müasir dünyada 5000-dən artıq xalq və millət mövcud olsa da, BMT iqamətgahında bayrağı dalğalanan müstəqil dövlətlərin sayı 200 dən çox deyil.

Müstəqillik tarixinin araşdırılması ümummilli lider Heydər Əliyevin belə bir əsaslı fikrini təsdiq edir ki, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun qorunub saxlanılması, yaşadılması, daimi və əbədi edilməsi bundan da çətindir. O, 1993-cü ildəki müraciətlərindən birində qeyd edirdi ki, "Azərbaycan xalqının

əsrlər boyu qəlbində yaşatdığı, həsrətini çəkdiyi günlər gəlib çatmışdır. Müstəqilliyi qazanmaq, dövlətin tam müstəqil olmasına nail olmaq üçün xalqımız çətin yollardan keçmişdir. Ancaq müstəqilliyi qorumaq, əldə saxlamaq, möhkəmləndirmək, dövlətin tam müstəqilliyinə nail olmaq, vətəndaşlara müstəqil dövlət şəraitində layiqli həyat şəraiti təmin etmək daha çətindir". (Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Elektron külliyyat, httr://heydaraliyev.rreslib.az).

Dünya təcrübəsi və Azərbaycanın dövlətçilik tarixinin qısa təhlili göstərir ki, müstəqilliyə qovuşmaq, milli dövlət yaratmaq və onu yaşatmaq üçün üç əsas şərtin olması vacibdir. Bunlar:

- müstəqillik üçün mövcud daxili və xarici şəraitin yetişməsi;
- müstəqillik qazanmaq, onu qorumaq və yaşatmaq üçün xalqın milli iradəsinin ortaya qoyulması və vahid milli məqsəd ətrafında birləşməsi;
- həmin dövr üçün millətin vahid milli ideyasının və iradəsinin daşıyıcısı rolunu oynayan, insanları səfərbər edərək öz arxasınca aparmaq gücünə və qabiliyyətinə malik, cəmiyyətin əksər təbəqələrinin qəbul etdiyi milli liderin olmasından ibarətdir.

Bəşər tarixində bu və ya digər xalqın və ölkənin müstəqilliyi üçün lazımi tarixi şəraitin yetişməsi ayrı-ayrı dövrlərdə müxtəlif forma və məzmunda özünü büruzə vermiş və bəhs olunan mövcud zaman və məkanın spesifik ölçüləri, əlverişli daxili və xarici amilləri və s. ilə ölçülmüşdür.

Milli iradə ortaya qoymaq və milli məqsəd uğrunda birləşmək bütün zaman və məkanlarda, bir qayda olaraq, ölkə əhalisinin tam əksəriyyətinin "birlik, vahidlik və qətiyyətlilik" əmsalı hesab olunmuşdur.

O ki qaldı tarixdə, millətlərin və dövlətlərin həyatında vahid, birləşdirici liderin, şəxsiyyətin oynadığı rola, bununla bağlı dünya siyasətşünaslığında fərqli yanaşmalar mövcuddur. Bu məsələdə ən inandırıcı siyasi yanaşma metodunu geosiyasi ədəbiyyatda "Biheviorist metod" tərəfdarları irəli sürür və əsaslandırırlar. Bu metoddan geosiyasətdə ilk dəfə ABŞ siyasətçisi, sonralar isə prezident seçilmiş Vudro Vilson 1880-ci ildə istifadə etmişdir. Həmin geosiyasi metoda görə, bu və ya digər hadisəni qiymətləndirərkən "tam aydın, dəqiq və birmənalı bilik və təcrübəyə əsaslanaraq qərar vermək lazımdır". V.Vilson hesab edirdi ki, həm daxili siyasətdə, həm də geosiyasətdə bütün hadisələrin əsasında lider (şəxsiyyət) dayanır və əsas rolu da məhz o oynayır. V.Vilson konkret zaman və məkan çərçivəsində xalqların, millətlərin və digər insan birliklərinin əsas maraq və mənafe dairəsinin, fəaliyyət və istəklərinin ifadə və təmin olunması yolları və vasitələrinin tapılmasını da məhz onların "liderlərinin dünyagörüşü və qabiliyyəti" ilə əlaqələndirirdi.

Şiyasətşünaslar şəxsiyyətin (liderin) xalqların və toplumların milli "özünü müəyyənetməsi" və ya milli kimliyi, milli dövlət quruculuğu və milli inkişafındakı tarixi rolunun ölçü meyarlarını onun mövcud zaman və məkan çərçivəsindəki milli ideya və milli iradə daşıyıcısı kimi çıxış etməsi, bu missiyanı icra etmək gücünə və keyfiyyətinə, geniş və hərtərəfli qlobal dünyagörüşə malik olması, yerli, regional və beynəlxalq geosiyasi mühitdən yetərincə baş çıxarması və nəhayət, cəmiyyətin ictimai dəstəyini qazanması ilə müəyyənləşdirirlər.

Müstəqilliyə qovuşması ilə Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti birdən-birə yaranmamış və bir neçə mərhələdən keçərək tədricən formalaşmışdır. Siyasi ədəbiyyatda bəzi xarakterik xüsusiyyətlərinə görə Azərbaycanın müstəqil dövlət quruculuğu və milli inkişafını bir neçə mərhələyə bölürlər.

Birinci mərhələyə Azərbaycanın müstəqillik haqqında Konstitusiya Aktını qəbul etməsindən 1993-cü ilə - Heydər Əliyevin hakimiyyətə gəlməsinə qədər dövrü aid edirlər.

1980-ci illərin sonu, 1990-cı illərin əvvəlində SSRİ-nin süqutunun qarşısıalınmaz prosesə çevrilməsi, beynəlxalq aləmdə yaranan əlverişli tarixi şərait, bölgədə cərəyan edən mərkəzdənqaçma meyillərinin vüsət alması, Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin həllində o zamankı sovet rəhbərliyinin ermənipərəst mövqeyi, ermənilərin yaranmış boşluqdan bəhrələnərək Azərbaycan torpaqlarını bir-birinin ardınca işğal etməsi və s. hadisələr Azərbaycanda əvvəlcə kortəbii xalq hərəkatına, 1990-cı ildən sonra isə artıq məqsədləri aydın olan milli-azadlıq hərəkatına rəvac verdi. Həmin vaxt ölkənin müstəqilliyinin elan olunması və müstəqil dövlət qurulması üçün tələb olunan ilk iki şərt tam yetişmişdi.

Bəhs olunan dövrdə SSRİ-nin ali siyasi rəhbərliyində yaranan böhranlı vəziyyət və Moskvada yaşanan siyasi qarşıdurmadan istifadə edən bir çox keçmiş müttəfiq respublikalar, o cümlədən Azərbaycan öz müstəqilliyini elan etdi. 1991-ci il oktyabrın 18-də respublikanın Ali Sovetində müstəqillik haqqında Konstitusiya Aktı qəbul edildi. Lakin həmin dövrdə həm ölkəni, həm də xalq hərəkatını idarə edənlərin, dövlət qurumlarının aydın milli inkişaf konsepsiyasının olmaması, respublikaya rəhbərlik edən şəxslərin müstəqillik və milli dövlət iradəsinin zəifliyi, qeyri-prinsipial və səriştəsiz iqtisadi, ictimai-siyasi və mənəvi siyasət yürütməsi, ölkədə sabitliyi və qanunçuluğu bərpa edə bilməməsi, siyasi mübarizənin milli-vətəndaş qarşıdurması müstəvisinə keçməsi, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqlarının işğal edilməsi və yerli əhalinin qaçqın-köçkünə çevrilməsi, iqtisadi, siyasi, sosial-mənəvi böhranın getdikcə dərinləşməsi və s. Azərbaycanı ciddi təhlükə ilə üz-üzə qoydu, əhalinin gələcəyə, müstəqil dövlətçiliyə inamını sarsıtdı.

Bu dövrdə Azərbaycanın milli azadlıq hərəkatı və müstəqil dövlət quruculuğu prosesinə rəhbərlik etmək iradəsinə, gücünə və qabiliyyətinə malik, əhalinin əksəriyyəti tərəfindən qəbul edilən və dəstəklənən milli liderə olan ehtiyac açıq-aşkar özünü göstərməyə başlayır. Belə lider 1990-cı ildən Naxçıvan əhalisinin iradəsi ilə Azərbaycan Ali Sovetinə deputat və 1991-ci ildən muxtar respublikanın Ali Məclisinə sədr seçilən, faktiki olaraq Naxçıvan əhalisinin xilaskarına çevrilən Heydər Əliyev oldu. 1993-cü ildə xalqın tələbi ilə, o, hakimiyyət dairələri tərəfindən Bakıya dəvət olundu. İyunun 15-də Ali Sovetin sədri, oktyabrın 3-də isə ölkə Prezidenti seçilərək, yenidən Azərbaycanın siyasi sükanı arxasına keçən Heydər Əliyev ölkənin milli inkişafının üçüncü əsas şərtini - vahid lider tələbini təmin etdi.

Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə ölkənin milli inkişafının yeni - ikinci mərhələsi başlandı. Tədqiqatçıların fikrinə görə, bu mərhələdə Azərbaycanın milli inkişaf siyasətinin, gələcək ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi inkişafının əsası qoyuldu, daxili və xarici siyasətinin məqsəd və vəzifələri, prinsip və xüsusiyyətləri, əsas istiqamətləri və prioritetləri müəyyən edildi.

Mütəxəssislər hesab edir ki, Heydər Əliyevin Azərbaycanın gələcək müstəqil milli inkişafı ilə bağlı siyasi dünyagörüşü və konseptual yanaşması ilk dəfə hələ SSRİ dağılmamışdan qabaq - 1991-ci ilin əvvəllərində Azərbaycan parlamentinin tribunasından səsləndirdiyi fikirlərdə öz əksini tapmışdır. Azərbaycanın yeni şəraitdəki inkişafı ilə bağlı onun həmin dövrdə parlament müzakirələrində səsləndirdiyi fikirlər, təklif və mülahizələr müstəqilliyə doğru uzanan yolda rastlaşılan yeganə rasional, praqmatik və uzaqgörən fəaliyyət nümunəsi idi (Ramiz Mehdiyev. Yeni siyasət: İnkişafa doğru. 1 kitab, Bakı, 2008. s.28-29).

Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin milli inkişafı ilə bağlı praktiki addımları - ictimai-siyasi, sosial-iqtisadi, mədəni-mənəvi inkişafının məqsəd və vəzifələrinin müəyyən edilməsi, ölkə həyatının bütün sahələrində keçmiş sosialist normalarından imtina edilməsi və yeni prinsiplərə söykənən dövlət quruculuğu proseslərini həyata keçirməsi, milli dövlətin əsas atributlarının yaradılması və s. də SSRİ-nin dağılmasından bir qədər əvvəl, 1991-ci ilin sentyabr ayında Naxçıvan MR Ali Məclisinə sədr seçilməsi ilə başlamış və 1993-cü ildən isə Azərbaycan Respublikasının Prezidenti kimi davam etdirilmişdir.

Müstəqil Azərbaycan dövlətinin sükanı arxasına keçəndən sonra Heydər Əliyev ölkənin milli ruhlu, qlobal düşüncəli və dövlət təfəkkürlü vətəndaşlarını, bütün sağlam qüvvələri öz ətrafına toplayaraq dövlətin gələcək iqtisadi, ictimai-siyasi və sosial-mənəvi inkişafının prinsiplərini, məqsəd və vəzifələrini müəyyənləşdirdi, onun keçmiş sosialist ictimai-siyasi və iqtisadi sistemindən yeni hüquqi dövlət quruluşuna, azad bazar iqtisadiyyatı və çoxmülkiyyətli iqtisadiyyata, demokratik normalara və siyasi plüralizmə əsaslanan vətəndaş cəmiyyəti modelinə keçidinin konseptual əsaslarını yaratdı və 1995-ci ildə qəbul olunmuş ölkə Konstitusiyasına daxil etdi.

Heydər Əliyevin milli inkişaf siyasətində bütün milli resursların, maddi və mənəvi sərvətlərin səfərbər edilməsi və ölkənin iqtisadi inkişafına yönəldilməsi taktikası mühüm yer tuturdu. Bu məqsədlə, o, 1994-cü ildə dünyanın aparıcı ölkələrini təmsil edən transmilli neft şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz resurslarının birgə işlənməsi və sərbəst yollarla dünya bazarlarına ixrac edilməsini hədəfləyən "Əsrin müqaviləsi"ni imzalamağa nail oldu. Bu müqavilə Azərbaycanın yeni neft strategiyasının əsasında dayanaraq, bir tərəfdən, ölkənin milli inkişafı üçün lazımi maddi resursların əldə edilməsi və istifadəsi yollarını müəyyənləşdirdi, digər tərəfdənsə onun beynəlxalq aləm üçün geosiyasi və geoiqtisadi əhəmiyyətini artıraraq, dünyaya inteqrasiyasını şərtləndirdi. "Əsrin müqaviləsi"ndən başlayaraq, Azərbaycan transmilli dünyanın və qlobal dünya iqtisadiyyatının bir hissəsinə çevrildi, ölkənin inkişaf etdirilməsi, bazar iqtisadiyyatı mexanizmlərinin formalaşdırılması, sahibkarlığın və özəl sektorun yaranması, fəal sosial siyasətin yürüdülməsi üçün həm daxildə, həm də xaricdə əlverişli şərait yarandı. Azərbaycan dövləti və vətəndaşları, ictimai-siyasi və iqtisadi institutlar dünya ölkələrinin iqtisadi, maliyyə və texnoloji imkanlarından istifadə etmək imkanı qazandılar.

Heydər Əliyevin milli inkişaf siyasətinin əsasında hüquqi dövlət, demokratik inkişaf və siyasi plüralizmə əsaslanan cəmiyyətin yaradılması dayanırdı. Bu istiqamətdə 1993-cü ildən həyata keçirilən tədbirlər, atılan ən mühüm addımlar - milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması, azad, plüralist cəmiyyət quruculuğu, qeyri-hökumət strukturlarının və müstəqil mətbuatın yaradılması ilə bağlı görülən çoxsaylı işlər, 1995-ci ildə demokratik normaları özündə əks etdirən yeni Konstitusiyanın qəbulu, çoxpartiyalı sistemin bərqərar olması, onun əsasında ilk parlament seçkilərinin keçirilməsi və demokratik parlamentin yaradılması, mətbuat və informasiya üzərindən bütün dövlət tənzimləyici mexanizmlərinin yığışdırılması və senzuranın ləğvi və s. həm milli inkişafı sürətləndirdi, həm də ölkənin dünyadakı demokratik imicini formalaşdıraraq, beynəlxalq ictimaiyyəti onunla daha geniş əməkdaşlığa ruhlandırdı. Bir neçə il ərzində hüquqi dövlət quruculuğu istiqamətində reallaşdırılan məqsədyönlü siyasət ölkənin ictimai-siyasi, iqtisadi, mənəvi-ideoloji və sosial həyatını kökündən dəyişdi, vətəndaş cəmiyyəti institutlarının yaradılması və inkişafına təkan verdi, ölkədaxili münasibətləri Avropa standartlarına uyğunlaşdırdı ki, bu da 2001-ci ildə Azərbaycanın Avropa

Şurasına daxil olması, Avropa Birliyi ilə tərəfdaşlıq münasibətləri yaratması, dünyanın demokratik təsisatlarına inteqrasiyası və s. ilə nəticələndi.

Heydər Əliyevin milli inkişaf siyasətində ədalətli cəmiyyət və sosialyönümlü dövlət, ölkə vətəndaşlarının sosial-iqtisadi və mənəvi tələblərinin dolğun təminatı, sosial rifahının yaxşılaşdırılması, mövcud maddi resursların ölkə daxilində insan potensialının inkişafına yönəldilməsi vəzifəsi mühüm yer tuturdu. Sosialyönümlülük, ümumiyyətlə, onun həyatı boyu yürütdüyü siyasətdə daim prioritet vəzifə sayılmış, rəhbərlik etdiyi dövlətin imkanları əhalinin rifah halının yaxşılaşdırılmasına xidmət etmişdir. Bununla bağlı, Heydər Əliyev daim vurğulayırdı ki, "xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" (Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Elektron külliyyat http://heydaraliyev.preslib.az). Məhz Heydər Əliyevin təməlini qoyduğu fəal sosial siyasətin nəticəsidir ki, 20 ildə ölkədə yoxsulluğun səviyyəsi dəfələrlə aşağı salınmış, əhalinin pul gəlirləri və həyat səviyyəsi dayanmadan yüksəlmiş, sosial-iqtisadi vəziyyəti yaxşılaşmışdır.

Heydər Əliyevin milli inkişaf siyasəti Azərbaycanın Cənubi Qafqaz və Xəzər hövzəsi, Avrasiya bölgəsi və dünyadakı regional və beynəlxalq addımlarını, mövqelərini, onun dünya birliyinə inteqrasiyasının prinsipial xəttini, əsas məqamlarını dəqiq müəyyən etmişdir. Onun beynəlxalq və regional xarici siyasət kursu Azərbaycanın geosiyasi maraqlarına müvafiq olaraq, həm region ölkələri ilə, həm də dünya dövlətləri ilə münasibətlərin praqmatik, ölçülüb-biçilmiş, düşünülmüş və balanslı siyasi strategiyasını formalaşdırmışdır. Xüsusən, Azərbaycanın malik olduğu enerji resurslarının, Qərblə Şərqi birləşdirən nəqliyyat-kommunikasiya imkanlarının və digər geosiyasi əhəmiyyətli üstünlüklərinin istifadəsində Heydər Əliyevin yürütdüyü prinsipial kurs, tətbiq etdiyi optimal yanaşma dünya dövlətləri içərisində Azərbaycanın güclü milli və regional faktora çevrilməsini, beynəlxalq aləmlə uğurlu inteqrasiyasını və əksər geosiyasi aktorlarla qarşılıqlı faydalı əməkdaşlığını şərtləndirmişdir. Heydər Əliyev tərəfindən düzgün təməli qoyulmuş xarici siyasət kursu 2011-ci il oktyabrın 24-də Azərbaycana dünyanın 150-dən çox ölkəsinin dəstəyini qazandırmış və BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsinə şərait yaratmışdır. Bu addım, həm də keçən müddətdə Heydər Əliyevin uzaqgörən siyasətinin ağıllı, səriştəli və dönmədən həyata keçirilməsinin nəticəsi idi.

Göründüyü kimi, Azərbaycan Prezidenti kimi Heydər Əliyevin 1993-2003-cü illərdə irəli sürdüyü ideya və fikirlər, iqtisadi, siyasi və sosial-mənəvi sahədə reallaşdırdığı kurs və praktiki tədbirlər milli inkişaf siyasətinin formalaşması və həyata keçirilməsinin ikinci mərhələsində ölkədə bir ictimai-siyasi sistemdən digərinə keçidin, yeni demokratik cəmiyyətin və ictimai həyat normalarının əsaslarını yaratmışdır. Bu siyasət bütün keçid dövrü ərzində imperiya və sosializm sistemindən azad olaraq müstəqillik yolu tutmuş, lakin region və dünya güclərinin üst-üstə düşməyən, kəsişən maraqları ilə üz-üzə qalmış, getdikcə qloballaşan dünyada öz yerini axtaran, milli maraqlarını və təhlükəsizliyini qorumağa çalışan gənc Azərbaycan dövləti üçün praktiki fəaliyyət proqramına çevrilmişdir.

Heydər Əliyevin milli inkişaf siyasəti həm də uzun illər öz dövlətçiliyindən və milli-mənəvi köklərindən ayrı salınmış, milli və dövlətçilik maraqları tapdanmış Azərbaycan xalqının özünəqayıdış və özünütəsdiqində mühüm, səfərbəredici funksiya yerinə yetirmiş, dövlət strukturlarının rəsmi və praktiki fəaliyyətinin, həyata keçirilən iqtisadi-siyasi, hüquqi və sosial-mənəvi proqramların əsasında dayanmışdır. Çünki Azərbaycana rəhbərlik etdiyi dövrdə, o, təkcə müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi, onun müstəqilliyinin dönməzliyinin təmin olunması və dövlətçilik atributlarının formalaşdırılması ilə deyil, mütəxəssislərin fikrinə görə, həm də Azərbaycan xalqının dövlətçilik ənənələrinin qədim köklərinin üzə çıxarılması və müasir tarixi dəyərlərlə birləşdirilərək milli şüurun bərpa olunması sahəsində əvəzsiz rol oynamışdır (Səlahəddin Xəlilov. Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsi Heydər Əliyev və Azərbaycan. Bakı, 2008.s.571).

Heydər Əliyev yeni şəraitdə birləşdirici azərbaycançılıq ideyasının - etnik mənsubiyyəti xüsusi qabartmadan Azərbaycana mənsubluq, Vətənə bağlılıq, ümumvətəndaşlıq, Azərbaycan dilinə və mədəniyyətinə sevgi, dövlətin sevinci və kədəri, dəyərləri və problemləri qarşısında ümumi və bərabər məsuliyyət hissi daşımaq kimi yeni konfiqurasiyanın - Azərbaycanın müstəqil dövlətçiliyi üzərində qurulmuş milli inkişaf siyasətinin ideoloji əsaslarını ortaya qoydu. Həm də xüsusi qeyd olunmalıdır ki, Heydər Əliyev daxili siyasətində vətəndaşların vahid amal və məqsəd ətrafında birləşdirilməsi istiqamətində addımlarını etnik-milli müstəvidən dövlətçilik və vətənpərvərlik müstəvisinə ustalıqla və mükəmməl formada keçirərək, respublikanın əsas vətəndaşları olan türk kökənli çoxluqla digər milli azlıqların, etnik qrupların birliyinə nail ola bilmişdir. Bu baxımdan, tədqiqatçı alim Səlahəddin Xəlilovun fikri ilə razılaşmamaq mümkün deyil ki, Heydər Əliyev milli ideologiyamızın əsasını müəyyənləşdirməklə bərabər, bilavasitə onun həyata keçirilməsini də təmin edirdi ki, bu da onun dövlət başçısı olmasından əlavə, həm də milli lider kimi üzərinə götürdüyü missiyaya necə böyük məsuliyyətlə yanaşmasına dəlalət edir (Səlahəddin Xəlilov. Lider. Dövlət. Cəmiyyət. Bakı, 2001, s. 87).

Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi, Heydər Əliyevin indiyə qədər toplanmış nəzəri-siyasi irsi müstəqil Azərbaycan dövlətinin əsasları və milli inkişafı haqqında zəngin mənbəşünaslıq bazası, bitkin bir təlim

hesab olunur. Bu təlimin bir çox tezisləri 1992-ci ildə Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı onun ölkə ziyalılarına ünvanlanmış müraciətində, həmin partiyanın yeni qəbul edilmiş məramnaməsində, digər hissəsi isə 1993-2003-cü illərdə onun prezidentlik fəaliyyəti dövründə qəbul edilmiş ayrı-ayrı dövlət proqramlarında, səsləndirdiyi fikir və mülahizələrdə, çıxışlarında, ortaya qoyduğu nəzəri-siyasi ideyalarda öz əksini tapmışdır. Mütəxəssislərin fikrinə görə, Heydər Əliyevin dövlət həyatının müxtəlif sahələri və yürüdülən siyasətin ayrı-ayrı məqamları ilə bağlı söylədiyi fikirlər, səsləndirdiyi tezislər, əslində, Azərbaycanın vahid milli inkişaf konsepsiyası, milli ideologiyası, müasir Azərbaycanın sosial idealı, milli-fəlsəfi dünyagörüşüdür, ölkənin real gerçəkliyinin, ictimai-siyasi və mədəni-mənəvi həyatının bütün sahələrini əks etdirən mükəmməl elmi-nəzəri sistem və dövlət quruculuğu təlimidir (Səlahəddin Xəlilov. Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsi...). Heydər Əliyevin ayrı-ayrı çıxışlarında dövrün ictimai-siyasi xarakteristikası, Azərbaycanda həyata keçirilən müstəqil dövlət quruculuğunun tələbləri, şərtləri və yolları, regionumuzda və beynəlxalq aləmdə baş verən hadisələr və geosiyasi proseslərin xüsusiyyətləri və onların Azərbaycanın daxili, regional və beynəlxalq vəziyyətinə təsiri, 1990-cı ilin əvvəllərində ölkənin düçar olduğu iqtisadi-siyasi böhranın təhlili, mövcud vəziyyətdən çıxış yolları və s. kimi taleyüklü strateji məsələlər özünün həqiqi cavabını tapmışdır.

Heydər Əliyevin milli inkişaf siyasətinin əsas xarakterik xüsusiyyətlərindən biri Azərbaycanda daxili inkişafın təkamül yolunun seçilməsi, bütün sahələrdə - hüquqi dövlət quruculuğu, bazar iqtisadiyyatına, çoxmülkiyyətçiliyə və azad rəqabətə keçid, demokratiya və siyasi plüralizmin yaradılmasında inqilabi yanaşmadan qaçması və təkamül prinsipini tətbiq etməsi idi. O, öz çıxışlarında daim vurğulayırdı ki, dövlət həyatında heç nəyə birdən-birə nail olmaq mümkün deyil. Nə iqtisadi, siyasi, sosial-mədəni inkişafa, nə də ki, demokratiya, vətəndaş cəmiyyəti və siyasi plüralizmə bir-iki gündə çatmaq olmaz. Bunun üçün uzunmüddətli ciddi təşkilati işlər görülməlidir, milli inkişaf resursları səfərbər edilməlidir, daxili idarəçilikdə, insanların şüurunda dəyişiklik edilməlidir. Bütün bunları heç bir inqilabla etmək mümkün deyil, bunu yalnız təkamül yolu ilə, tədricən həyata keçirmək olar (Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. **Elektron külliyyat, http: heydaraliyev.preslib.az).**

Göründüyü kimi, Heydər Əliyevə görə milli inkişafa təkamül yolu ilə, ciddi və uzunmüddətli praktiki işlərlə yanaşı, həm də milli şüurun formalaşması yolu ilə nail olmaq mümkündür. Heydər Əliyev qeyd edirdi ki, bir ölkədə hətta inqilabi dəyişikliklər belə köhnə sistemi dərhal dəyişdirmir, onu yeni bir sistemlə əvəz etmir, inqilab köhnəni vurub dağıdır, ancaq ondan fərqli sistem yaratmaq üçün müəyyən vaxt və illər lazımdır (Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Elektron külliyyat, httr://heydaraliyev.rreslib.az).

Heydər Əliyevin milli inkişaf sahəsində atdığı addımların, həyata keçirdiyi tədbirlərin əvvəlcədən elmi-siyasi təhlili, onun müsbət və mənfi tərəflərinin ölçülüb-biçilməsi, nəticələrinin proqnozlaşdırılması, ardıcıl və məqsədyönlü olması da siyasətşünasların diqqətini cəlb etmişdir. Bu xüsusiyyət özünü, xüsusən, Azərbaycanın daxili və xarici siyasətinin, milli təhlükəsizliyinin, hərbi quruculuğunun proqramlaşdırılması və yerinə yetirilməsində, iqtisadi-siyasi və sosial proqramların qəbulunda göstərmişdir.

Mütəxəssislər Heydər Əliyevin dövlətçilik və milli inkişaf nəzəriyyəsinin ən böyük yeniliklərdən biri kimi, onun sosial sistemləri dağıdıb yenidən vaxt və qüvvə sərf etmədən, öz daxili enerjisi hesabına dəyişdirərək, proseslərin təbii gedişini istiqamətləndirmək taktikasını xüsusi qeyd edirlər. Bu taktikanı reallaşdırarkən əsas məsələ mürəkkəb proseslərə müxtəlif rakurslardan yanaşmaq qabiliyyəti idi. Heydər Əliyevin milli inkişaf siyasətində ictimai davranış və əxlaq normaları cəmiyyət üçün kənar təsirlər vasitəsilə deyil, məhz daxildən - ictimai şüurun həmahəng formada yetişməsi yolu ilə tətbiq olunurdu (Səlahəddin Xəlilov. Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsi...).

Heydər Əliyev müstəqillik dövrünün 1993-2003-cü illəri əhatə edən keçid mərhələsində Azərbaycanın milli inkişaf siyasətinin həm nəzəri əsasını qoydu, həm də onu praktiki şəkildə reallaşdıraraq dövlət müstəqilliyinin dönməzliyini təmin etdi.

Heydər Əliyevin milli inkişaf təlimi Azərbaycandakı bütün sonrakı proseslərin təməlində dayanır və bundan sonra da dayanacaqdır. Onun Azərbaycan xalqının dövlətçilik ənənələrinə söykənərək 1993-cü ildə müəyyənləşdirdiyi siyasi kurs, əsasını qoyduğu demokratik və hüquqi dövlət idarəçiliyi forması 1995-ci ildə qəbul olunmuş yeni Konstitusiyaya daxil edilmiş və 2003-cü ilə qədər ulu öndərin özü tərəfindən həyata keçirilmişdir. Təsadüfi deyil ki, 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev Heydər Əliyevin müəyyənləşdirdiyi və 1993-2003-cü illərdə həyata keçirdiyi milli inkişaf siyasətinin heç bir alternativi olmadığını, bu strateji inkişaf kursunun bundan sonra da dönmədən davam etdiriləcəyini birmənalı şəkildə bəyan etmişdir (Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyanatları http://files.preslib.az/site/ialiyev/2003).

Göründüyü kimi, Heydər Əliyevin dövlətçilik kursu və milli inkişaf siyasəti, xüsusən onun təməl prinsipləri, nəzəri-siyasi məsələləri bütün keçid dövrü üçün Azərbaycanın əsas inkişaf strategiyası olmuş, 2003-2011-ci

illərdə dövrün, zamanın və respublikanın müasir inkişafının yeni tələbləri də əlavə olunaraq, Prezident İlham Əliyev tərəfindən dönmədən həyata keçirilmişdir.

Hazırda Azərbaycan Respublikası bir çox sahələrdə, xüsusən iqtisadi sferada keçid dövrünü başa vurmuşdur. Respublikanın sonrakı onilliyini hədəfə alan yeni inkişaf konsepsiyasının yaradılmasına ciddi ehtiyac yaranmışdır. Heç kimdə şübhə yoxdur ki, yeni inkişaf konsepsiyası da Azərbaycanın milli inkişafının Heydər Əliyev tərəfindən müəyyən olunmuş əsas təməl prinsiplərini mütləq şəkildə nəzərə alacaq və davam etdirəcəkdir.

Mütəxəssislər hesab edir ki, Heydər Əliyev dühasının fövqəladəliyi həm də onda idi ki, o, təkcə öz dövrünün nəbzini tutmaqla məhdudlaşmadı, ölkəni ictimai-siyasi, sosial-iqtisadi inkişafının birinci fazasından uğurla çıxarmaq missiyasını başa vurdu və bununla kifayətlənməyərək, vaxtında ikinci fazanın təməl daşını qoydu, bu mərhələdə ölkəyə rəhbərlik edə biləcək yeni siyasi güc mərkəzini yaratdı... Bəzi qonşu ölkələrdən fərqli olaraq Azərbaycan yeni iqtisadi sistemin üstqurumu kimi ortaya çıxan siyasi dünyagörüşü və yeni siyasi lideri müxalifətdə deyil, iqtidar partiyasının içərisində yetişdirdi. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev Heydər Əliyevin siyasi kursunu davam etdirməklə yanaşı, həm də onu yeni şəraitin tələblərinə uyğun surətdə, yaradıcılıqla inkişaf etdirir.

Hazırda respublika öz inkişafının keçid dövrünü başa vuraraq, sosial-iqtisadi, mənəvi və s. sahədə yeni mərhələyə qədəm qoymaqdadır. Keçən illərdə Azərbaycan bütün sahələr üzrə Heydər Əliyevin milli inkişaf siyasətini uğurla həyata keçirərək, nəzərəçarpacaq nailiyyətlər qazanmışdır. İctimai-siyasi həyatın demokratikləşməsi, vətəndaş cəmiyyəti quruculuğunun, siyasi plüralizmin getdikcə dərinləşməsi, iqtisadi həyatın liberallaşması, sahibkarlıq institutlarının yaradılması və sahibkar təşəbbüskarlığına söykənən iqtisadiyyat modelinin bərqərar olması, iqtisadi və sosial infrastrukturun təkmilləşdirilməsi və s. göstəricilər Azərbaycanın gələcək inkişafı üçün geniş imkanlar açmışdır. Müşahidə olunan dayanıqlı inkişaf həm də hakimiyyət qarşısında yeni, uzunmüddətli Milli İnkişaf Konsepsiyasının yaradılması və həyata keçirilməsi vəzifəsini irəli sürmüşdür.

Azərbaycanın ictimai, siyasi, iqtisadi, mədəni həyatının bütün sahələrində əldə etdiyi uğurlar Prezident İlham Əliyevə qarşıdakı dövrdə Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mənəvi-ideoloji transformasiyasının yeni mərhələsinin təməlini qoymaq və milli inkişafın növbəti on ilinin vəzifələrini müəyyənləşdirmək imkanı yaratmışdır. Azərbaycan dövləti bütün sahələrdə nail olunan müvəffəqiyyətlərlə kifayətlənməyərək, Qərbin inkişaf etmiş ölkələrinin standartları səviyyəsinə yüksəlməyi və müasir bir ölkəyə çevrilməyi hədəfə almışdır.

Yeni mərhələnin əsas hədəfi, bir tərəfdən əldə olunmuş iqtisadi, siyasi, sosial və mədəni nailiyyətləri möhkəmləndirmək, ölkəni müasir tələblər səviyyəsinə qaldırmaq, digər tərəfdən isə gələcək liberal, çoxşaxəli, rəqabətədavamlı, dinamik və innovasiya yönümlü milli iqtisadiyyatın formalaşdırılması, iqtisadi və insan resurslarının düzgün istifadə edilməsi, ictimai və sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi, sosial sahədə optimal, səmərəli və ədalətli inkişaf modelinin yaradılması, əhalinin rifahının qabaqcıl beynəlxalq standartlara çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında tətbiqi istiqamətlərin inkişaf etdirilməsi, ictimai həyatın bütün sahələrində yeni nailiyyətlərin əldə olunması və s. ibarət olmalıdır.

Azərbaycanın gələcək milli inkişaf siyasətinin əsas və uzunmüddətli perspektivləri ilə bağlı vahid konsepsiyanın hazırlanması, strateji inkişafın gələcək istiqamətlərinin, prinsip və vəzifələrinin müəyyənləşdirilməsi müasir Azərbaycan dövlətinin qarşısında dayanan əsas vəzifələrdən biri hesab olunur. 29 noyabr 2011-ci ildə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə Azərbaycan Respublikası Prezidentinin xüsusi sərəncamı məhz bu məsələni qarşıya vəzifə kimi qoyur. Sərəncamda qeyd olunur ki, son dövrdə Azərbaycan Respublikasında milli dövlət quruculuğu istiqamətində həyata keçirilən islahatlar, reallaşdırılan çoxsaylı xüsusi dövlət proqramları və s. ölkə həyatının bütün sahələrində müsbət nəticələrin əldə olunmasına şərait yaratmışdır. Bu illər ərzində, xüsusilə son onillikdə Azərbaycanda makroiqtisadi sabitliyə, dinamik iqtisadi artıma nail olunmuş, yoxsulluğun azaldılmasında və əhalinin sosial rifahının yüksəldilməsində ciddi uğurlar qazanılmışdır.

Ölkə Prezidenti bu sərəncamda Azərbaycanın perspektiv inkişafının əsas hədəf və istiqamətlərinin müəyyən edilməsi məqsədi ilə müvafiq dövlət orqanlarının, elmi təşkilatların və yüksək ixtisaslı mütəxəssislərin iştirakı ilə, 2020-ci ilədək dövrü əhatə edən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanmasını Administrasiyası qarşısında mühüm bir vəzifə kimi qoymuşdur.

Sərəncamda həmçinin yeni İnkişaf Konsepsiyasının yaradılması sahəsində qabaqcıl dünya təcrübəsindən yararlanmaq, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və digər beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq etmək kimi tapşırıqlar verilmiş, bu işdə vətəndaş cəmiyyəti təsisatlarının iştirakının, habelə layihənin açıq müzakirəyə çıxarılması üçün müvafiq tədbirlərin görülməsinin vacibliyi qeyd edilmişdir ("Azərbaycan" qəzeti, 30 noyabr, 2011. N 264, s. 1).

**Beləliklə, bu gün Azərbaycanda ümummilli lider Heydər Əliyevin irsi, müəyyən etdiyi milli inkişaf siyasəti yaşayır və ardıcıl olaraq, yaradıcı surətdə, müasir dövrün tələbləri, reallıqları nəzərə alınmaqla uğurla davam etdirilir.**

**"Azərbaycan".-**2011.-13 dekabr.-N 275.-S.2-3.

# HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK FƏLSƏFƏSİ VƏ MÜASİR AZƏRBAYCAN

**Oqtay SULTANOV,**
tarix elmləri doktoru, professor

**Müasir dünyanın son onilliklərdəki siyasi-iqtisadi, sosial panoramına nəzər saldıqda və bu fonda Azərbaycan Respublikasının mövqeyini dəyərləndirmək istədikdə paradoksal bir mənzərə ilə üzləşirik. Ötən əsrin 80-ci illərinin sonundan başlayaraq dünya ölkələrinin əksəriyyətini çuğlayan enerji problemləri son illər daha ciddi xarakter almış maliyyə böhranı ilə də müşaiyət olunmaqdadır. Vətənimiz Azərbaycan Respublikası isə bu xaotik vəziyyətin qarşılığında sosial-iqtisadi cəhətdən dinamik inkişaf, siyasi cəhətdən isə sabitlik şəraitində yaşamaqdadr. Təbii ki, ortaya məntiqi bir sual çıxır: Dünyada böhranlı bir şərait hökm sürdüyü zamanda necə olur ki, Azərbaycan inkişafa nail olur? (Bu inkişafın reallığını isə neçə-neçə faktor birmənalı şəkildə təsdiq edir. Bu illər ərzində ölkəmizin büdcə vəsaitinin çox böyük artımı, Neft Fonduna toplanan maliyyə ehtiyatlarının həcminin 2001-ci ildəki 0,5 milyard dollardan hazırda 32 milyard dollara qədər yüksəlməsi, ümumi istehsal prosesində qeyri-neft sektorunun yüksəlişi və özəl sektorun payının durmadan artması və s. faktlar bu inkişafı təsdiq edən qənaətlərdir.) Bu inkişafı təmin edən amillər hansılardır?**

Zənnimcə, bugünkü dinamik inkişafın başlıca şərti müstəqil dövlət quruculuğunun ilkin mərhələsində ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi ilə qoyulmuş sarsılmaz özüllə bağlıdır. Güman edirəm, bu özülün məzmunu, mahiyyəti hələ uzun illər tarixçi və politoloq mütəxəssislər tərəfindən öyrəniləcəkdir. Heydər Əliyev böyük idrakı və ölməz əməlləri ilə özünəməxsus bir dünya yaradıb. Zaman keçdikcə bu dünyanın da hüdudları genişlənir və bizdə təcrübəmizə, yaşımıza, biliklərimizə müvafiq olaraq bu aləmin ənginliyini və zənginliyini daha yaxşı dərk etməyə başlayırıq.

Qeyd etdiyim bu keyfiyyətlər Heydər Əliyevin müstəqil dövlət quruculuğu strategiyasının prinsiplərinə də aiddir. Təbii ki, yeni dövlətin bünövrəsinin saflığı və möhkəmliyi ilk növbədə onun əsasında duran iqtisadi inkişaf yolunun xarakterindən asılıdır. Heydər Əliyev yeni, müstəqil Azərbaycan dövləti üçün bu yolu müəyyənləşdirərkən birinci olaraq demokratik prinsipləri, xalqın mənafeyini və rəyini nəzərə alırdı. Bu yol sağlam rəqabətə əsaslanan sərbəst iqtisadiyyat yoludur. Indiki dünyanın qabaqcıl ölkələri təxminən 200-300 ildir ki, bu prinsiplərlə yaşayırlar. Həmin dövlətlər bu gün böhran içərsindədir, Azərbaycan isə tərəqqi dövrünü yaşayır. Bu da dövlətin özülünün spesifik keyfiyyətlərindən asılıdır. Heydər Əliyev iqtisadi inkişaf strategiyasının prinsiplərini müəyyənləşdirərkən dünya təcrübəsinin ən mütərəqqi cəhətlərinə əsaslanmışdır. Beynəlxalq təcrübə göstərir ki, azad rəqabətə əsaslanan iqtisadi inkişafın tarixən üç əsas modeli mövcud olmuşdur. Bunlardan birincisi təbii-tarixi inkişaf tipidir. Avropanın klassik kapitalist ölkələri bu yolu keçmişlər. Bu modelin səciyyəsi ondan ibarətdir ki, ticarət kapitalizmindən yüngül sənayeyə, sonra isə ağır sənayeyə doğru tədrici təkamül yolu keçilir. Bu zaman iqtisadiyyatın bütün sahələrində inkişaf təkamüllü təmin olunur. Amma bu yolu seçən xalqlar həm də ağır və ziddiyyətli vəhşi kapitalizm mərhələsindən də keçməli olurlar.

Sərbəst iqtisadiyyat şəraitində iqtisadi inkişafın digər modeli marginal, başqa sözlə desək, haşiyəli inkişaf modelidir. Bu modeldə dövlət ilk növbədə onun marağında olan sahələri inkişaf etdirir, qalanlarını isə həmin sahənin monopoliyasını saxlayır. Məsələn, I Pyotr dövründən bu yolu seçmiş Rusiya ilk növbədə hərbi sənayeni inkişaf etdirmiş, nəticədə Sovet dövrü də daxil olmaqla hərbi cəhətdən qüdrətli bir dövlətə çevrilsə də, sosial iqtisadi baxımdan ac bir dövlət olmuşdur.

Tarixdə yaşanmış üçüncü model müstəmləkə kapitalizmi yoludur. Bu yol ilk növbədə iqtisadi inkişaf üçün xarici kapitalın investisiya imkanlarından istifadə edilməsinə əsaslanır.

Müstəqil Azərbaycan dövlətinin özülünü qoyarkən Heydər Əliyevin böyüklüyü və uzaqgörənliyi onda oldu ki, iqtisadi inkişaf modellərinin heç birinin çərçivələri ilə məhdudlaşmadan hər üçünün ən mütərəqqi, müstəqil dövlət quruculuğunun tələblərinə və mövcud tarixi reallığa uyğun gələn, Azərbaycanın maraqlarına, Azərbaycan xalqının gələcəyinə xidmət edən prinsiplərini seçərək, onlardan bəhrələnərək iqtisadi inkişafın yeni-Azərbaycan modelini yarada bildi. Ölkəmizin mənafeyini, xalqımızın istəklərini, respublikamızın təbii ehtiyatlarını, geosiyasi mövqeyini nəzərə alan, onlara tam uyğun olan bu model hətta ən böhranlı beynəlxalq şəraitdə belə Azərbaycanın dayanıqlı iqtisadi inkişafının qarantıdır. Müstəqil dövlət quruculuğunun ilkin mərhələsində seçilmiş bu inkişaf modeli Azərbaycanın digər sahələrdə də yüksələn xətlə irəliləməsini təmin etmiş oldu.

Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsinin digər bir mühüm amili onun məhz demokratik prinsiplərə əsaslanmasıdır. Ötən əsrin əvvəllərindəki milli və proletar inqilablarının təcrübəsinin, eləcə də müasir Şərqdə cərəyan edən proseslərin təhlili göstərir ki, demokratik inkişaf yolunun bəyan edilməsi hələ öz-özlüyündə xalqın

azad və xoşbəxt gələcəyinin təminatı üçün kifayət etmir. Heydər Əliyev bu baxımdan da Azərbaycan reallıqlarına müvafiq variant seçə bildi. Onun təsəvvüründəki azadlıq və demokratiya idealına görə, gələcək vətəndaş cəmiyyəti quruculuğu yolunda, siyasi əqidəsindən, partiya mənsubluğundan asılı olmayaraq, xalqın heç bir təbəqəsinin hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yol vermək olmaz. Heydər Əliyev fəlsəfəsinin gücü bundadır. O, hakimiyyətə gəldikdən sonra qanunvericiliyimizdə mövcud olan və demokratik prinsipləri pozan insanların siyasi mənsubiyyətinə görə ayrı-seçkiliyə yol verən bir sıra müddəaları qətiyyətlə aradan qaldırdı. Əyani bir misal: Ölkəmizdə 1995-ci ildəki parlament seçkilərində 12 partiya iştirak edirdisə, 2000-ci ildə onların sayı 20-ə çatmışdı və yaradılmış demokratik şəraitə uyğun olaraq onların seçki kompaniyası dövlət vəsaiti hesabına maliyyələşdirilirdi. Heydər Əliyevin demokratik dövlət quruculuğu strategiyasında, bir çox digər xalqların təcrübəsindən fərqli olaraq, azadlıq yalnız məqsəd yox, həm də vasitədir.

Heydər Əliyevin seçdiyi quruculuq yolunun müdrikliyi bir də onda idi ki, o, demokratiya prinsipini müstəqil dövlət quruculuğunun ilkin mərhələsində- ölkəmizdə hələ ictimai-siyasi sabitliyin və qanunçuluq bazasının olmadığı, sosial gərginliyin hökm sürdüyü, müharibə getdiyi bir şəraitdə irəli sürmüşdü. Bu zaman Heydər Əliyev həm özünün son dərəcə zəngin siyasi və idarəçilik təcrübəsinə, həm tarixi və beynəlxalq təcrübə barədə mükəmməl bilgilərinə, həm də bir şəxsiyyət və dövlət xadimi kimi özünün daxili demokratiya və xalqsevərliyinə, humanistliyinə, vətənpərvərliyinə əsaslanırdı. Vəziyyətin çətinliyi və mürəkkəbliyi bir də onda idi ki, Heydər Əliyev xalqın rifahının aşağı olduğu, iqtisadi inkişafın hələ olmadığı bir şəraitdə ictimai sabitliyi təmin etməli idi. O, müdrik zəkası, siyasi iradəsi və qətiyyəti hesabına buna da nail ola bildi. Həm ictimai stabilliyi təmin etdi, həm də sosial-iqtisadi inkişafa təkan vermiş oldu. Bu məqamda güclü hakimiyyət amilini də mütləq qeyd etmək lazımdır. Heydər Əliyev təfsirində "güclü hakimiyyət" prinsipi azadlığı boğan yox, azadlığın təminatçısı olan bir amildir. Heydər Əliyevin qalibiyyətini təmin edən dövlət quruculuğu xəttinin bir başında demokratiya prinsipi dururdusa, digər başında təşkilatlanma prinsipi dururdu. Bu modeli də Heydər Əliyev böyük quruculuq və nəzəri-ideoloji təcrübəsinə əsaslanaraq dəyərli bir yenilik kimi irəli sürmüşdü və həmin ideya bu gün də Azərbaycanda dövlət quruculuğunun ən vacib elementi kimi öz əhəmiyyətini saxlamaqdadır.

Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin əsas müddəalarından biri də dövlətin təhlükəsizliyinin təmin olunmasından ibarətdir. Bu istiqamətdə, təbii ki, hüquq-mühafizə orqanlarının və təhlükəsizlik sisteminin möhkəmləndirilməsi, ordu quruculuğunun prioritet məsələ kimi daim diqqət mərkəzində saxlanılması önəmli vəzifələrdir. Təəssüf ki, Sovet imperiyasının süqutu prosesindən bizə Dağlıq Qarabağ münaqişəsi kimi ağrılı bir problem miras qalmışdır. Biz ərazimizin 20 faizində hələ ki, öz suverenliyimizi təmin edə bilməmişik, amma dünyanın bütün ölkələri, bütün nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycan Respublikasının ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını tanıyırlar. Bununla belə, Heydər Əliyevin təhlükəsizlik konsepsiyasının əsasında duran ən başlıca məqam məhz xalqın təhlükəsizliyinin təmin edilməsidir. Bu konsepsiyaya görə Azərbaycan dövləti, dünyanın harasında yaşamasından asılı olmayaraq, Azərbaycan xalqının hər bir nümayəndəsinin təhlükəsizliyinin təminatçısı kimi çıxış edir. Burada yalnız fiziki mənada təhlükəsizliyin təmin olunması yox, həm də onların hüquq və azadlıqlarının qorunması, milli mənəvi dəyərlərimizin, ilk növbədə ana dilimizin, soydaşlarımızın milli mənlik şüurunun yaşadılması, onların assimilyasiya təsirlərində mühafizə edilməsi kimi məsələlər daxildir.

Suveren dövlətin təhlükəsizliyinin qorunması üçün qarşıda duran əsas vəzifələrdən biri də milli mənafelərlə dünyanın aparıcı dövlətlərinin maraqlarını, beynəlxalq prinsipləri bacarıqla uzlaşdırmaqdan ibarətdir. Heydər Əliyevin dövlətimizə başçılıq etdiyi zamandan başlayaraq müasir dövrə qədər uğurla davam etdirilən çoxşaxəli xarici siyasət xətti, aktiv tarazlaşdırma taktikası təhlükəsizliyimizin bu şərtinin də ödənildiyini sübut edir. Azərbaycan dünyanın ən nüfuzlu, ən qüdrətli dövlətləri ilə bərabərhüquqlu tərəfdaş kimi münasibətlər qura bilmişdir. Dövlətimiz ölkə daxilində də şəxsi maraqlarla ictimai maraqları, qrup maraqları ilə dövlət maraqlarını bacarıqla uzlaşdırmağı bacarmışdır.

İdeoloji platforma, siyasi mənsubluq baxımdan ayrılan insanlar milli və dövlətçilik maraqları mövqeyində birləşməyi zəruri sayırlar. Beləliklə, Heydər Əliyevin dövlətçilik fəlsəfəsi həm də xalqı birləşdirən, bütövləşdirən bir faktor kimi qiymətləndirilə bilər.

Heydər Əliyevin dövlətçilik fəlsəfəsi yalnız bizim ölkəmiz üçün deyil, ümumən dünya dövlətçilik tarixi və təcrübəsi üçün də böyük dəyərə malikdir. Onun dünya təcrübəsinə əsaslanaraq, ondan bəhrələnərək formalaşdırdığı, Azərbaycan reallığına uyğunlaşdıraraq ortaya qoyduğu milli müstəqil dövlət quruculuğu konsepsiyası, lazım gələrsə, tarixinin analoji mərhələsini yaşayan digər xalqlar tərəfindən də yaradıcı şəkildə mənimsənilərək tətbiq oluna bilər. Bu, Heydər Əliyev dühasının dünya siyasəti tarixinə də dəyərli töhfə verdiyini əyani surətdə təsdiq edir. Çünki dövlət quruculuğunun Heydər Əliyev konsepsiyası məqsəd və vəzifələri dəqiq müəyyənləşdirən konkret metodologiyaya malikdir.

Heydər Əliyevin dövlət quruculuğu fəaliyyətinin dəyəri və böyüklüyü ondadır ki, o, bu missiyaya, sadəcə olaraq, praktik siyasətçi kimi yanaşmamış, bir mütəfəkkir kimi bu işin fəlsəfəsinə, ideya əsaslarına varmağı, dünya xalqlarının, o cümlədən öz xalqının tarixi təcrübəsini öyrənərək həyata tətbiq etməyi, zamanın və siyasi-ictimai reallıqların xarakterinə uyğun addımlar atmağı bacarmışdı. Bu cəhət onun ölkəmizin XX əsr tarixini qiymətləndirməsində, müasir Azərbaycan dövlətinin qurulması üçün Cümhuriyyət və Sovet dövrü təcrübəsindən ibrətli nəticələr çıxararaq quruculuq fəaliyyətinə tətbiq etməsində də özünü göstərir. Bu cəhəti həm siyasi, həm də iqtisadi cəhətdən varislik prinsiplərinin təmin edilməsində müşahidə edirik. Qeyd etmək lazımdır ki, bu tarixi təcrübədə Heydər Əliyevin özünün siyasi və idarəçilik təcrübəsinin bəhrələrinin də- hələ sovet dövründə respublikamıza rəhbərlik edərkən sənaye potensialının gücləndirilməsində, aqrar sahənin inkişafında, neft sektorunun gələcək inkişafını təmin edən işlərin görülməsində, ordu quruculuğu üçün ilkin addımların atılmasında, respublikanın mütəxəsis və kadr potensialının gücləndirilməsində, milli-mənəvi dəyərlərin qorunmasında, mədəniyyət və incəsənətin inkişaf etdirilməsində, təhsil sisteminin gücləndirilməsində, ana dilimizin rəsmi statusunun təmin olunmasında, milli mənlik şüurunun inkişafına şərait yaradan mühitin formalaşdırılmasında qazanılmış nailiyyətlərin çox böyük əhəmiyyəti olmuşdur. Müstəqil Azərbaycan dövlətinin qurulmasında bir çox sahələr üzrə həmin potensialdan bir baza kimi istifadə olundu.

Maraqlıdır ki, müstəqilliyin ilk illərində, dövlətimizin yeni Heydər Əliyev Konstitusiyası qəbul edilənə qədər ölkəmiz 1978-ci ildə qəbul edilmiş Konstitusiya ilə yaşayaraq müstəqilliyin ilk addımlarını ata bilmişdi.

Heydər Əliyevin dövləçilik fəlsəfəsinə görə, siyasi sistemdən asılı olmayaraq, xalq həmişə azadlıq və müstəqillik arzusundadır və bu arzu ilə xalq öz müstəqil dövlətini qurur. Yəni xalq dövlət üçün deyil, dövlət xalq üçündür. Heydər Əliyev bu demokratik prinsipi müstəqil Azərbaycan dövlətinin Konstitusiyası ilə birbaşa təsbit etdi. Qeyd olundu ki, həm ölkə daxilində, həm də beynəlxalq miqyasda dövlətin başlıca vəzifəsi xalqın maraqlarını təmin etməkdir. Məhz bu tələblər bu gün müasir Azərbaycan dövlətinin daxili və xarici siyasətdə qazandığı danılmaz uğurların əsasını təşkil edir. Bu da onu göstərir ki, Heydər Əliyevin dövlətçilik fəlsəfəsi nəzəri cəhətdən bitkin bir təlim olsa da, praktik olaraq zaman etibarilə daim inkişaf etmək, təkmilləşmək, reallığa uyğunlaşmaq qüdrətinə malikdir. Bu keyfiyyət də həmin əsasda qurulan müasir Azərbaycan dövlətinin gələcək perspektivlərinə böyük ümidlərlə, nikbinliklə baxmağa əsas verir. Son ümumxalq referendumu ilə Konstitusiyamıza edilmiş dəyişiklər də məhz Heydər Əliyev ideyalarının yeniləşmək və reallığa, vətəndaşların mənafeyinə daha mükəmməl şəkildə uyğunlaşması nümunəsidir. Məsələn, əvvəlki varianta – “Dövlət vətəndaşların azadlığını təmin etməyə borcludur” şəkildə ifadə olunmuş müddəa yeni variantda belə səslənir: “Dövlət vətəndaşların azadlığını və layiqli həyat səviyyəsini təmin etməyə borcludur.” Bu, ilk növbədə Prezident İlham Əliyevin ulu öndər Heydər Əliyevin dövlətçilik fəlsəfəsinə yanaşdığı müasirlik bucağının ifadəsidir.

Bu məqamda ümummilli liderimizin xalqa vəsiyyət məzmunlu son müraciətində İlham Əliyevi xarakterizə etmək üçün işlətdiyi sözləri xatırlatmaq yerinə düşərdi: “O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasəti və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, İlham Əliyev bundan sonra da xalqımızın ən layiqli oğullarını öz ətrafında daha sıx birləşdirəcək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəkdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcəkdir. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.”

Müasir Azərbaycan reallığı ulu öndərin öz ümidlərində yanılmadığını əyani şəkildə təsdiq edir. Böyük mənada isə onun varisi yalnız ali dövlət kürsüsünü etibar etdiyi cənab Prezident yox, bütün Azərbaycan gəncliyidir.

**“Xalq qəzeti”.-**2012.-7 yanvar.-N 3.-S.3.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN GENDER SİYASƏTİ: UĞURLU NƏTİCƏLƏR

**Sahibə QAFAROVA,**
Milli Məclisin deputatı,
Dövlət Slavyan Universitetinin prorektoru

Bu gün əsas beynəlxalq sənədlərdə cinslər arasında bərabərlik insanın başlıca hüquqlarından biri kimi təsbit edilir. Beynəlxalq hüquqda haqlı olaraq, qadınlar xüsusi subyekt kimi dəyərləndirilir, onlara hüquqlarının həyata keçirilməsi üçün geniş təminatlar müəyyən olunur. Milli dövlətlər isə bu təminatların reallaşdırılması, nəzəri cəhətdən mövcud olan yüksək dəyələrin praktikada tətbiq olunması üçün səylərini ildən-ilə daha da gücləndirməlidirlər.

Nəzərə almaq lazımdır ki, qadınlar üçün bəyan edilən bərabər hüquqlar real bərabər imkanların olmaması səbəbindən çox vaxt gerçəkləşə bilmir. Ona görə də, müasir dövrdə qadınların ictimai həyata daha çox inteqrasiya olunduğu bir zamanda zərif cinsin nümayəndələrinə daha geniş hüquqların verilməsi, onların bütün sahələrdə təmsilçiliklərinin artırılması, müxtəlif fəaliyyət sferalarının inkişafında qadınların potensialından səmərəli istifadə kimi tədbirlər bu gün daha böyük nailiyyətlərin əldə olunmasına şərait yarada bilər. Hər halda Azərbaycan dövlətinin bu istiqamətdə atdığı addımlar və əldə olunmuş nailiyyətlər bu fikri daha da qüvvətləndirir. Bildiyimiz kimi, ötən il Azərbaycanın dövlət müstəqilliyinin əldə olunmasının 20-ci ildönümünü qeyd etdik. Təbii ki, bu, dövlətçilik tarixi baxımından o qədər də çox olmayan zaman periodudur. Amma buna baxmayaraq, Azərbaycan Respublikası bu 20 illik dövr ərzində bir çox dövlətlərin əsrlərlə əldə edə bilmədiyi yüksəlişə, inkişafa nail olmuşdur. İqtisadiyyat, sosial həyat, siyasət və beynəlxalq aləmdə mühüm nailiyyətlər qazanılmışdır. O cümlədən, insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində də çox ciddi nailiyyətlər əldə olunmuşdur ki, bu, da bütün beynəlxalq və yerli müşahidəçilər, mütəxəssislər tərəfindən etiraf olunmaqdadır. Ölkəmizdə müxtəlif sahələrdə aparılan islahatlar, vətəndaş cəmiyyətinin formalaşmasında vətəndaşların fəallığının artırılması yolunda görülən işlər qadınların cəmiyyətdəki rolunun artırılmasını da təmin etmişdir.

Şübhəsiz ki, əgər biz bu gün Azərbaycanda qadın hüquqlarının ən yüksək səviyyədə təminatından, gender bərabərliyindən bəhs ediriksə, bu məsələdə Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əhəmiyyətini mütləq şəkildə vurğulamalıyıq. Tam səmimi olaraq, qeyd edə bilərik ki, Azərbaycanda uğurlu gender siyasətinin əsası Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə qadın şəxsiyyətinin önəmini yüksək qiymətləndirmişdir. Yüzlərlə qadınlarımız Onun yaratdığı əlverişli şərait nəticəsində fərdi bacarıqlarını nümayiş etdirmiş, müxtəlif idarəetmə orqanlarında rəhbər vəzifələrdə çalışmışdır. Hələ Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi işlədiyi 1970-1980-ci illərdə ölkənin sosial-mədəni həyatında qadınların rolu xeyli artmışdır. Bu sahədə işləyən qadınların ümumi sayında müəllimlər 47 %, həkimlər 60 %, tələbələr 43 %, elmi işçilər 37 % təşkil edirdi. Həmin dövrdə yetişən ziyalılar içərisində Azərbaycan qadınlarının xüsusi çəkisi olmuşdur. Azərbaycan elminin şöhrətini ucaldan və onu dünyaya tanıdan bu ziyalı qadınlara ittifaq miqyaslı fəxri adların verilməsi Heydər Əliyevin onlar qarşısındakı əvəzsiz xidmətlərindən biri idi.

Ümummilli lider Heydər Əliyev cəmiyyətdə qadının rolunun yüksəldilməsi məsələsini həmişə diqqət mərkəzində saxlamaqla qadınların dövlət strukturlarında, parlamentdə, siyasi və ictimai təşkilatlarda geniş təmsil olunmasına çalışmışdır.

Dövlət müstəqilliyini bərpa etdikdən sonra da Azərbaycan Respublikasında qadın hüquqlarının qorunması üzrə çox mühüm addımlar atılmış, müvafiq qərarlar qəbul olunmuşdur. Bu qərarların da müəllifi Ulu öndər Heydər Əliyev olmuşdur. İlk olaraq, Azərbaycan bütün mühüm beynəlxalq sənədlərə, o cümlədən 1995-ci ildə "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması" üzrə Konvensiyaya, 2000-ci ildə isə onun Əlavə Protokoluna qoşulmuşdur. 1998-ci ildə "Azərbaycanda qadınların rolunun artırılması haqqında" Sərəncam imzalanmışdır. Bu Sərəncamda dövlət strukturları tərəfindən daha yüksək diqqət tələb edən öncül sahələr müəyyənləşdirilmişdir. Heydər Əliyev bu Sərəncamla qadınların dövlət və ictimai həyatda irəli çəkilməsində mövcud köhnə bazanı demokratik dövrdə yeniləşdirdi. Məlumdur ki, Azərbaycan Respublikası Konstitusiyasının 55-56-ci maddəsində qadınlar da daxil olmaqla bütün vətəndaşların dövlətin idarə olunmasında iştirak etmək hüququ təsbit edilir. Onlar dövlət orqanlarında qulluq etmək və bütün seçkilərdə qeyri-şərtsiz iştirak etmək hüququna malikdirlər.

Ulu öndərin 6 mart 2000-ci il tarixdə imzaladığı "Azərbaycan Respublikasında Dövlət Qadın Siyasətinin həyata keçirilməsi haqqında" 289 saylı Fərman respublika qadınlarına 8 Mart bayramı qabağı önəmli hədiyyə oldu. Fərmanda Azərbaycan Respublikasının bütün dövlət qurumlarında fəaliyyət növü nəzərə alınmaqla qadınların rəhbərlik səviyyəsində kişilərlə bərabər təmsil olunması, Dövlət Statistika Komitəsinə Qadın

Problemləri üzrə Dövlət Komitəsi ilə birlikdə standartlara cavab verən statistik məlumatın hazırlanması, Nazirlər Kabinetinə ölkədə gedən iqtisadi islahatlar çərçivəsində həyata keçirilən işlərdə gender siyasəti tələblərini rəhbər tutaraq qadınlar üçün kişilərlə bərabər imkanlar yaradılması və bu kimi mühüm tapşırıqlar öz əksini tapmışdır.

2000-ci ilin ilk aylarında "Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı" hazırlanmışdır. Bu plan 1995-ci ildə Azərbaycanın qoşulduğu "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya və Pekin Fəaliyyət Platformasında qəbul edilmiş strategiyalar əsasında respublikadakı mövcud vəziyyəti və prioritetləri nəzərə almaqla tərtib edilmişdir. Plan problemlərin beynəlxalq standartlara uyğun şəkildə həllinə yönəldilmiş nazirlik, komitə, qeyri-dövlət və beynəlxalq təşkilatların iştirakı ilə hazırlanmış və bütün problemli sahələrdə gender bərabərliyinə yönəldilmiş dövlət sənədidir. "Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı" adlanan bu sənədi Azərbaycan Respublikası Nazirlər Kabineti 6 mart 2000-ci il tarixli, 33 saylı qərarı ilə təsdiq etmişdir. Bu sənəd dövlət proqramlarının hazırlanmasını, habelə qadın problemləri ilə əlaqədar konkret təxirəsalınmaz tədbirlərin görülməsini nəzərdə tutur. Bu Fəaliyyət Planında qadınlara qarşı zorakılığın bütün formalarının, qadın ticarəti, istismarının qarşısının alınması məsələlərinə ayrıca bir bölmə həsr edilmişdir. Sənəddə qadın hüquqlarının pozulmasında təqsirkar şəxslərə qarşı qanunla nəzərdə tutulan qaydada məsuliyyətə cəlb etmə də daxil olmaqla, müvafiq ölçülərin götürülməsi nəzərdə tutulur.

Azərbaycan qadınlarının fəallığının artması istiqamətində önəmli hadisə olan Azərbaycan Respublikası Qadınlarının II qurultayı 27 sentyabr 2003-cü il tarixdə keçirilmişdir. Qurultaya 2070 nəfər nümayəndə seçilmişdir. Qurultayda başqa məsələlərlə yanaşı, koordinatorların fəaliyyəti qiymətləndirilmiş, əldə edilmiş nailiyyətlərlə yanaşı çatışmazlıqlar da müəyyən edilmiş yə gələcək inkişaf perspektivlərinin ilkin konturları dəqiqləşdirilmişdir.

Əsası Ulu öndər tərəfindən qoyulan Azərbaycanın gender siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Dövlət başçısı gender məsələlərinə xüsusi həssaslıqla yanaşır, bu sahədə bütün müvafiq addımların atılmasına şəxsən nəzarət edir. Azərbaycan Ruspublikasının Prezidenti İlham Əliyev 2010-cu ilin may ayında Bakıda keçirilən Avropa Şurasına üzv dövlətlərin gender bərabərliyinə həsr olunmuş VII konfransın iştirakçılarına təbrik məktubunda müstəqil Azərbaycan Respublikasında gender məsələlərinə münasibəti bu cür ifadə etmişdir: "Gender bərabərliyi müasir dövrdə demokratik cəmiyyətin inkişafının və insan hüquqlarının qorunmasının əsas prioritetlərindən birini təşkil edir. Müstəqil Azərbaycan Respublikasında milli qanunvericilik qadınların hüquq bərabərliyini təmin edərək hər cür ayrı-seçkiliyin qarşısını almağa xidmət göstərir, gender məsələləri ilə bağlı dövlət siyasəti isə qadınların bərabər imkanlarının gerçəkləşdirilməsinə yönəlmişdir. Azərbaycan təhsili və səhiyyəsində aparıcı mövqelər tutan qadınlarımız ölkəmizin siyasi, sosial və ictimai həyatının bütün sahələrində fəal iştirak etməklə, real gender bərabərliyinə nail olunması üçün öz qüvvələrini əsirgəmirlər".

Azərbaycan Respublikasının bütün qanunları (Cinayət Məcəlləsi, Mülki Məcəllə, Əmək Məcəlləsi, Ailə Məcəlləsi və s.) və normativ hüquqi aktlarında qadınların bərabər hüquqlarının təsbit edilməsi diqqət mərkəzində saxlanılır ki, bunlar da bütövlükdə Konstitusiya əsasında işlənib hazırlanmışdır. Bu qanunlarda qadınlara qarşı ayrı-seçkiliyə yol verən müddəalar yoxdur və qanun çərçivəsində insanlar cinsi mənsubiyyətə görə məhdudlaşdırılmır. Qanunvericilik insan hüquqları və mənafelərini cinsi mənsubiyyətdən asılı olmayaraq qoruyur və əsas beynəlxalq humanitar aktların tələblərinə cavab verir.

Xüsusi olaraq vurğulamaq yerinə düşər ki, problemlərin həllində beynəlxalq əməkdaşlıq həmişə mühüm rol oynamışdır. O cümlədən, ölkəmizdə düzgün gender siyasətinin reallaşdırılması üçün beynəlxalq təcrübədən yararlanmaq və bu sahədə geniş əməkdaşlığa imza atmaq bu gün sadaladığımız uğurların əldə olunmasında müstəsna rol oynamışdır. Azərbaycan hökuməti genderin təşviqi sahəsində BMT, ATƏT/DTİHB (Demokratik Təsisatlar və İnsan Haqları Bürosu), AŞ kimi beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir. Hazırda, Bakıda və Azərbaycanın digər bölgələrində qadınların siyasətə cəlb olunması və qərar qəbul etmə proseslərində iştirakı sahəsində müxtəlif layihələr həyata keçirilir. Gender bərabərliyinin təşviqi sahəsində ölkəmizin yaxından əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlardan biri də BMT-nin Qadınlar üçün İnkişaf Fondudur (UNİFEM). Ölkəmizin UNİFEM-lə əməkdaşlığı "Qadınlar Cənubi Qafqazda münaqişələrin qarşısının alınması və sülh yaradılması uğrunda" adlı regional layihə çərçivəsində həyata keçirilmişdir. Layihə əsasən hökumətlər, qadın koalisiya və şəbəkələri ilə tərəfdaşlıq şəraitində həyata keçirilmiş və gender bərabərliyi və qadınların səlahiyyətlərinin genişləndirilməsi məqsədi daşımışdır. Eyni zamanda, Azərbaycan hökuməti beynəlxalq səviyyədə də qadın hüquqlarının təşviqində fəal iştirak edir. Bunun göstəricisi olaraq, 2008-ci il iyunun 10-11-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyevanın təşəbbüsü ilə Bakıda "Mədəniyyətlərarası dialoqda

qadınların rolunun genişləndirilməsi" adlı beynəlxalq forum keçirilmişdir. 2010-cu il 24-25 may tarixində Bakıda Avropa Şurasına üzv olan ölkələrin gender məsələlərinə məsul nazirlərinin "Gender bərabərliyinin de-yure və de-fakto təmin edilməsi" mövzusuna həsr edilmiş VII konfransı keçirilmişdir ki, həmin konfransda Avropa Şurasının üzv dövlətlərinə tövsiyələr və fəaliyyətlər üzrə Tədbirlər Planı qəbul edilmişdir. Həmçinin, Azərbaycan dövləti Avropa Şurası ilə də mütərəqqi əməkdaşlıq qurmuş, parlamentarilərimiz qurumun Kişi və qadınlar üçün bərabər imkanlar komitəsinin iclaslarında fəal iştirakları ilə müsbət mənada seçilmişdir. Bildirmək yerinə düşər ki, komitənin növbəti iclasının məhz Azərbaycan paytaxtında keçirilməsi gündəmdədir.

Bu gün Azərbaycan qadını ictimai həyatın hər bir sahəsində fəallıq göstərir. Statistik rəqəmlər də bu fikri özündə ehtiva edir. Belə ki, Azərbaycanda qadınların üstünlük təşkil etdiyi sahələr içərisində səhiyyə (78,6 faiz), təhsil (71 faiz) və mədəniyyət (75 faiz) ən ön sıralardadır. Həmçinin səhiyyə sistemində rəhbər vəzifədə çalışanların 37 faizini, təhsil sahəsində 44 faizini, mədəniyyət və turizm qurumlarında 23 faizini qadınlar təşkil edir. Hazırda ölkəmizdə AMEA-nın 3 həqiqi üzvü, 12 müxbir üzvü qadındır. Bu məqamlar Azərbaycan hökumətinin imkanların genişləndirilməsi, qadınların cəmiyyətdə fəallığının artırılması və ümumiyyətlə, onların vəziyyətinin yaxşılaşdırılması məsələlərinə göstərdiyi yüksək qayğının əyani təzahürüdür. Lakin son illər qadınların həm də siyasi və ictimai qərar qəbuletmə səviyyəsində, iqtisadi sferada iştirakı nəzərə çarpacaq dərəcədə artmışdır. Təbii ki, bu görülən işlərin nəticəsində mümkün olmuşdur. Bu gün Azərbaycan hökuməti qadınların iqtisadi sferada öz potensiallarını artırması üçün müxtəlif həvəsləndirici və təşviqedici tədbirlər görür. Qadınların biznes sahələri yaratması üçün dövlət tərəfindən güzəştli kreditlərin verilməsi, müxtəlif vakansiyalara qadınların cəlb olunması kimi tədbirlər bunlardan sadəcə bir neçəsidir.

Bir məsələni də xüsusilə qeyd etmək yerinə düşər. Bildiyimiz kimi, Azərbaycan tarixində xalqının, dövlətinin taleyində müstəsna rol oynamış, öz qərarları və atdıqları addımlarla xalqımızın gələcəyinə işıq tutmuş görkəmli qadınlarımız olmuşdur. Azərbaycan xanımları bütün dövrlərdə öz istedadı, zəkası, ağlı və iradəsi ilə milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və yaşadılmasında müstəsna xidmətlər göstərmişdir. Tariximizin və mədəniyyətimizin bir çox parlaq səhifələri də məhz Azərbaycan qadınının adı ilə bağlıdır. Çox sevindirici haldır ki, bu gün də bütün fəaliyyətini xalqımızın, dövlətimizin daha da inkişafına həsr edən belə işguzar, cəsarətli, vətənpərvər xanımları vardır. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin üzvü Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti həm də hər bir azərbaycanlı qadın üçün fəxr, qürur mənbəyidir. Onun milli – mənəvi dəyərlərimizin qorunması, xalqımızın zəngin irsininin təbliği, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, gənc nəslin sağlam mühitdə böyüməsi və tərbiyə olunması, səhiyyənin, təhsilimizin, mədəniyyətimizin inkişafı sahəsində əvəzsiz xidmətləri yüksək ali ideallara və yalnız milli maraqlarımıza söykənir. Bu gün hər bir Azərbaycan qadını öz fəaliyyətində Mehriban xanım Əliyevanın cəsarətli addımlarını, yorulmaz fəaliyyətini örnək sayır.

Beləliklə, bu gün iqtisadi qüdrəti, geostrateji çəkisi ilə Cənubi Qafqaz regionunun ən güclü dövləti olan Azərbaycan Respublikası insan hüquq və azadlıqlarının mühüm tərkib hissəsi olan qadın hüquqlarının qorunması, düzgün gender siyasətinin həyata keçirilməsi baxımından da örnək təşkil edir. Ölkəmizdə cinsindən asılı olmayaraq, hər bir vətəndaşımızın cəmiyyətin həyatında fəal iştirakına yaradılan əlverişli şərait nəticə etibarilə həm də dövlətimizin inkişafına müsbət təsir göstərməkdədir.

**"Yeni Azərbaycan".-**2012.-5 aprel.-№58.-S.4.

# XALQ ÜÇÜN QURULMUŞ DÖVLƏT

**İmamverdi İSMAYILOV,**
Milli Məclisin deputatı

Müstəqillik hər bir xalqın tarix boyu can atdığı ən ali dəyərdir. Çünki bu dəyər xalqların azadlıq əzmini, demokratik inkişafını, milli ideyalar üzərində mədəni yüksəlişini özündə ifadə edir. Böyük dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı da bu amal uğrunda çətin sınaqlardan keçmiş, tarixin müxtəlif dönəmlərində istiqlal mübarizəsinin şərəfli salnamələrini yaratmışdır. Tarixi keçmişimizdən soraq gətirən mənbələr, şifahi-yazılı ədəbi nümunələr Azərbaycan xalqının istiqlal ruhunu özündə əks etdirən məqamlarla zəngindir.

Bəşər mədəniyyətinə verdiyi misilsiz töhfələrlə, tarixdəki yeri və rolu ilə xalqımız dövlət müstəqilliyini hələ yüz illər əvvəldən öz milli haqqına çevirmiş, bu haqqın əldə edilməsinə doğru aparan yol isə heç də asan olmamışdır. Geostrateji baxımdan kifayət qədər mürəkkəb regionda yerləşən, zəngin təbii sərvətlərə malik Azərbaycan xalqına tarix müstəqil dövlətə sahib olmaq xoşbəxtliyini bir neçə dəfə nəsib etsə də, xarici təhdidlər üzündən bu xoşbəxtliyin ömrü uzun sürməmiş, xalq yenidən əsarətə məhkum edilmişdir. Müsəlman Şərqində ilk demokratik dövlət olaraq 1918-ci ildə öz istiqlalını bütün dünyaya bəyan edən Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 aydan sonra süquta uğraması və Cümhuriyyəti yaratmış dəyərli ziyalılarımızın Azərbaycanın demokratik gələcəyi ilə bağlı ideyalarının təqiblərə məruz qalması da milli dövlətçilik tariximizin daim təəssüflə xatırladığımız məqamlarındandır.

Şükürlər olsun ki, ötən əsrin sonlarına doğru tarix "səhvlərini düzəltdi" və Azərbaycan xalqı 20 il öncə, 1991-ci ilin 18 oktyabrında istiqlalına qovuşdu. 1991-ci ildə dünyaya gəlmiş körpələri indi müstəqil Azərbaycan dövlətinin sərhədlərini qoruyan əsgərlər, ölkəmizin sosial-iqtisadi, mədəni tərəqqisi üçün yaşlı nəslin nümayəndələri ilə çiyin-çiyinə çalışan gənc vətəndaşlar kimi görmək müstəqilliyin ağır sınaqlarını öz həyatında yaşamış insanlar üçün böyük məmnuniyyətdir. O gənclərdən ötrü bu gün, müstəqilliyinin hər növbəti ildönümünü ardıcıl sosial-iqtisadi nailiyyətləri ilə qeyd edən, beynəlxalq aləmdə yüksək nüfuza malik, getdikcə abadlaşan, sabit, nizamlı, demokratik bir Azərbaycan dövləti var. Bu dövlətin çətin və şərəfli müstəqillik yolu isə Azərbaycanın daha da qüdrətlənməsinə, ölkəmizin qloballaşan dünyanın çağırışlarına uyğun gələcək inkişafının təmin olunmasına görə məsuliyyət daşıyan hər kəsin zaman-zaman xatırlayıb öyrənməli olduğu şanlı tarixdir.

Ötən əsrin 80-ci illərinin sonlarına doğru SSRİ-nin iflası ilə nəticələnən milli-azadlıq hərəkatının keçmiş Sovet respublikaları arasında məhz Azərbaycanda başlanması o dövrə qədərki proseslərin məntiqi nəticəsi idi. Tarix cəmiyyətin milli ideyalar ətrafında həmrəylik nümayişinə əsaslanan bu cür hərəkatların birdən-birə deyil, uzun illər ərzində formalaşmış zəminlər üzərində ortaya çıxdığını öyrədir. Bu mənada, Azərbaycan milli azadlıq hərəkatının xalqımızın Ümummilli lideri, Ulu öndər Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə formalaşmış milli zəminlərdən güc aldığını qeyd edən tədqiqatçılar öz mövqelərində tam haqlıdırlar.

Ulu öndər Heydər Əliyevin ötən əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq Azərbaycan milli-mənəvi dəyərlərinin qorunması, tariximizin düzgün istiqamətdə öyrənilməsi, ana dilimizin rolunun artırılması, xalqın azadlıq istəyinin təcəssümü kimi ortaya çıxan ədəbi-bədii nümunələrin hücumlardan qorunması yönündə apardığı məqsədyönlü siyasət cəmiyyətdə milli ruhun oyanışına təkan verdi. Sovet ideologiyasının ziyanlı təsirləri nəticəsində öz milli kimliyini unutmaq təhlükəsi ilə üz-üzə qalmış insanları tədricən milli ideyalar ətrafında səfərbər etdi.

Heydər Əliyev bir neçə ildən sonra öz istiqlalını elan edəcək Azərbaycanın gələcək müstəqilliyi üçün zəruri sosial-iqtisadi əsasları, infrastruktur təminatını, milli kadr potensialını formalaşdırdı. İnsanlarımıza milli dövlətçilik düşüncəsi aşıladı. Hər bir azərbaycanlı özünü bəlli bir coğrafiyanın gələcəyinə görə məsuliyyət daşıyan vətəndaş kimi dərk etməyə başladı. Ölkə üçün gərəkli mütəxəssislərin hazırlanması məqsədilə 1970-1982-ci illər arasında və daha sonralar minlərlə azərbaycanlı gənc məhz Heydər Əliyevin təşəbbüsü əsasında SSRİ-nin müxtəlif şəhərlərindəki nüfuzlu ali məktəblərdə təhsil almağa göndərildilər. Sadalananlar Heydər Əliyevin sovet Azərbaycanına rəhbərliyi dövründə Ulu öndərin siyasi iradəsi əsasında görülmüş işlərin yalnız məhdud bir hissəsidir və bütün bunların ötən əsrin 80-ci illərinin sonlarına doğru Azərbaycanın istiqlal mübarizəsi tarixinin hərəkətverici qüvvəsi rolunda çıxış etdiyi qətiyyən şübhə doğurmur.

Əfsuslar olsun ki, müstəqillik tarixinin ilk mərhələlərini Heydər Əliyev kimi müdrik siyasət ustadının qətiyyətli addımları deyil, çoxsaylı itkilərə, Azərbaycan ərazisinin 20 faizinin Ermənistan silahlı birləşmələri tərəfindən işğalına, cəmiyyətdə ağır sarsıntılara səbəb olan təsadüflər idarə etdi. Ölkəmizin müstəqilliyinə qarşı

çıxan qüvvələr tərəfindən Heydər Əliyevin ölkənin idarəçiliyi prosesindən mümkün qədər kənarda saxlanması Azərbaycanı yenicə qazandığı dövlət müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qoydu.

“Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir”. Müstəqilliyin ilk illərində baş verənlər Ulu öndər Heydər Əliyevin bu kəlamındakı həqiqəti hər addımda sübuta yetirirdi. O zaman Azərbaycanın həyatında həlledici bir mərhələ yaşanmaqda idi. Azərbaycan dövlət müstəqilliyinə nail olmuş, lakin respublikanın müstəqilliyini təmin edəcək əsaslar formalaşdırılmamışdı. Qısa müddətdə konkret qərarların qəbulunu tələb edən taleyüklü məsələlər dövlət maraqlarından daha çox, şəxsi mənafelər uğrunda mübarizə aparan siyasi qüvvələrin mübahisə predmetinə çevrilmişdi.

Ölkədə xaos, anarxiya baş alıb gedir, sosial-iqtisadi böhran, inflyasiya gündən-günə dərinləşir, bir-birini əvəz edən iqtidarların səriştəsiz siyasəti Azərbaycanı fəlakətə sürükləyirdi. Qeyri-qanuni silahlı birləşmələr arasında tez-tez baş verən toqquşmalar vəziyyəti vətəndaş qarşıdurması həddinə gətirib çıxarırdı. Bakıda hakimiyyət uğrunda silahlı mübarizə gücləndikcə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan Azərbaycan ərazilərinin coğrafiyası genişlənir, xarici ölkələrlə münasibətlər gərginləşir, çoxmillətli respublika olan Azərbaycanın müxtəlif bölgələrində xarici qüvvələrin təhriki ilə separatizm meyilləri baş qaldırırdı. Belə çətin bir dönəmdə Azərbaycan xalqının kömək umduğu yeganə qüdrət sahibi yenə də məhz Heydər Əliyev idi. Xalq öz Ümummilli liderini Azərbaycanı bu fəlakətlərdən xilas etməyə çağırırdı. Nəhayət, 1993-cü ilin 15 iyununda Ulu öndərin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın müstəqillik tarixində dönüş nöqtəsinə çevrildi.

Heydər Əliyevin 1993-cü ildən başlayaraq həyata keçirdiyi qətiyyətli və məqsədyönlü tədbirlər nəticəsində ölkədə özbaşınalığa, xaosa son qoyuldu. İctimai-siyasi sabitlik təmin edildi. Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli istiqamətində danışıqların başlanması və cəbhə bölgəsində atəşkəsin əldə olunması insan tələfatının qarşısını aldı. Xarici dövlətlərlə, müvəqqəti hakimiyyətlər dövründə pozulmuş münasibətlər qaydaya salındı. Azərbaycanın hərtərəfli sosial-iqtisadi inkişafı, respublikamızın beynəlxalq iqtisadi sistemə inteqrasiyası üçün məqsədyönlü tədbirlər görüldü.

1994-cü il sentyabrın 20-də Bakıda “Əsrin müqaviləsi”nin imzalanmasına nail olan Azərbaycan MDB məkanında Qərbin aparıcı neft şirkətləri ilə irimiqyaslı saziş imzalayan ilk dövlət kimi Xəzər dənizində beynəlxalq əməkdaşlığın bünövrəsini qoydu. Bu saziş təkcə ölkəmiz üçün deyil, Qərbin bir sıra aparıcı dövlətləri, habelə Cənubi Qafqaz və Orta Asiya regionu üçün strateji əhəmiyyətli sənəd kimi Azərbaycanda demokratik inkişaf proseslərinin başlanmasına böyük təkan verdi. 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi ilə qəbul edilən müstəqil Azərbaycan Respublikasının Konstitusiyası hüquqi dövlət quruculuğu prosesinin təməlinə çevrildi. Azərbaycanda hakimiyyət bölgüsü müəyyənləşdi. İnsan hüquq və azadlıqları təmin edildi. Vətəndaş cəmiyyəti institutları formalaşdı. Azad bazar iqtisadiyyatı prinsiplərinin tətbiqi ölkənin gələcək iqtisadi inkişaf yolu kimi müəyyənləşdirildi, bu xətt qısa müddətdə özünü doğrultmağa başladı. Torpaq islahatı, dövlət mülkiyyətinə aid əmlakların özəlləşdirilməsi prosesi uğurla həyata keçirildi. Ölkə iqtisadiyyatında özəl sektorun rolu artdı, azad sahibkarlar sinfi formalaşdı.

Azərbaycanın beynəlxalq mövqeyi gücləndi, ölkəmizin suverenliyinə, demokratik inkişaf yoluna dəstək verən dövlətlərin sırası genişləndi. Respublikamız dünyanın nüfuzlu beynəlxalq qurumlarına tamhüquqlu üzv qəbul edildi. Ölkəmizdə yaradılan ictimai-siyasi sabitlik, əlverişli biznes mühiti bütün dünyada Azərbaycanın etibarlı tərəfdaş imicini formalaşdırdı. Respublikanın iqtisadi həyatının ən müxtəlif sahələrinə sərmayə axını başlandı. Azərbaycanın ideya müəllifliyi və yaxından iştirakı ilə qlobal əhəmiyyətli enerji-kommunikasiya layihələri reallığa çevrildi.

Ulu öndər Heydər Əliyev bu nailiyyətlərlə Azərbaycanın dövlət müstəqilliyinə qarşı yönələ biləcək bütün təhdidlərin qarşısını aldı, müstəqilliyin əbədiliyini təmin etdi. Azərbaycanın siyasi taleyinin gələcəkdə hər hansı təsadüflərin asılılığına düşməsinə imkan vermədi. Azərbaycanda inkişaf proseslərinin ardıcıllığına, dönməzliyinə təminat yaradan məqsədyönlü strategiya müəyyənləşdirdi və əsası Ulu öndər tərəfindən qoyulmuş strategiya bu gün Heydər Əliyevin mənəvi-siyasi irsinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən böyük əzmlə həyata keçirilməkdədir.

2003-cü ilin prezident seçkiləri ərəfəsində - tarixi taleyimizin məsuliyyətli günlərində xalqa müraciət edən Ulu öndər, cənab İlham Əliyevi yeni mərhələdə ölkəyə rəhbərlik etməyə qadir şəxsiyyət kimi gördüyünü, respublikanın gələcək taleyi baxımından vacib olan bir çox işlərin Onun tərəfindən uğurla başa çatdırılacağına inandığını ifadə edərək demişdi: “Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü

məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Həmin seçkilər nəticə etibarilə cəmiyyətin bütün təbəqələrinin mənafelərini özündə ehtiva edən Heydər Əliyev siyasi kursunun davamlılığını və alternativsizliyini şərtləndirən amillərin sosial sifarişə əsaslandığını sübuta yetirdi. Xalqın böyük etimadını qazanaraq dövlət başçısı seçilmiş cənab İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə ölkəmizin qazandığı misilsiz nailiyyətlərin üstünlüyü, obyektiv xarakteri və alternativsizliyi Ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu illər ərzində dəfələrlə təsdiqini tapmış bu siyasi kursun Azərbaycanın dövlətçilik əsaslarının daha da möhkəmləndirilməsinə, müstəqilliyimizin əbədiliyinə, dövlətin hərtərəfli yüksəlişinə ən etibarlı təminat olduğunu bir daha sübuta yetirdi.

Prezident İlham Əliyev öz tükənməz enerjisi, quruculuq fəlsəfəsi ilə hakimiyyətdə varisliyin yeni, daha bitkin, konkret, əyani və universal modelini ortaya qoydu. Bu model qarşıdakı illərdə Azərbaycanın aqrar, sənaye, sosial-mədəni, humanitar, bir sözlə, bütün sferalarda yüksək keyfiyyət sıçrayışını nəzərdə tutduğu üçün xalqa çox yaxındır. Güclü, çevik və yüksək iş qabiliyyətli komandaya malik olan dövlət başçısı hökumət qarşısında duran prioritet vəzifələri düzgün müəyyənləşdirməklə yeni dövrün ən səciyyəvi cəhəti kimi, ilk növbədə, milli iqtisadiyyatda struktur dəyişikliklərinə nail olmağın, kəmiyyət dəyişikliklərini keyfiyyət müstəvisinə keçirməyin zəruriliyini önə çəkdi və bunu reallığa çevirməyi bacardı.

Sosialyönümlü siyasət yeridən Prezident İlham Əliyev qəbul etdiyi fundamental qərarlarla, imzaladığı fərman və sərəncamlarla daim xalqın mənafeyindən çıxış etdiyini, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini sübuta yetirməkdədir. O, ictimai həyatın bütün sahələrində yeni dövrün tələblərinə uyğun islahatların aparılması, qeyri-neft sektorunun ümumi daxili məhsuldakı çəkisinin artırılması, regionların proporsional inkişafı, yeni istehsal müəssisələrinin açılması, işsizlik, yoxsulluq probleminin tam aradan qaldırılması istiqamətində effektiv nəticələrə hesablanmış cəsarətli addımlar atır.

Dövlət müstəqilliyini yenicə əldə etmiş hər bir dövlətə xas sosial-iqtisadi problemlərin həlli mərhələsini qısa müddətdə başa çatdıran Azərbaycan bu gün tarixinin böyük yüksəliş dövrünü yaşayır. Respublikamızda bir iqtisadi-ictimai formasiyadan digərinə keçid dövrü başa çatdırılmış, bir çox problemlər tam həllini tapmışdır. Azərbaycan sosial-iqtisadi inkişaf göstəricilərinə görə dünyanın ən qabaqcıl ölkələri ilə eyni sıradadır. Həyata keçirilən dövlət proqramları ölkənin hərtərəfli inkişafını, vətəndaşlarımızın firavan həyatını təmin edir. Azərbaycanda qeyri-neft sektorunun inkişafı, təbii resurslardan əldə edilən gəlirlərin insan kapitalına çevrilməsi, respublikada elektron hökumətin formalaşması üçün dövlət mərhələ-mərhələ icra edilən aydın fəaliyyət planına malikdir.

Möhtərəm Prezidentimiz Azərbaycanın dövlət müstəqilliyini qoruyan, milli dövlətçilik əsaslarını möhkəmləndirən, ölkədə demokratik ənənələrin təsbit olunmasına şərait yaradan Ulu öndər Heydər Əliyevin ən yaxın silahdaşı kimi gənc müstəqil dövlətimizin rifahı naminə bütün bacarığını sərf edir. Onun böyük diplomatik məharətlə həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət xətti bütün məsələlərdə Azərbaycanın milli maraqlarının qorunmasına, ölkəmizin beynəlxalq nüfuzunun daha da yüksəlməsinə xidmət göstərir.

Cənab İlham Əliyev o dövlət rəhbərlərindəndir ki, fəaliyyət qrafikinin xeyli hissəsini bölgələrə səfərlərdə, bilavasitə vətəndaşlar arasında keçirir, ölkənin sosial-iqtisadi infrastrukturu üçün mühüm əhəmiyyət daşıyan obyektlərin açılışında iştirak edir və gələcək inkişaf üçün öz tapşırıqlarını verir. Müasir siyasi lider və menecer təfəkkürlü hakimiyyət başçısına xas olan məziyyətlərin uğurlu təcəssümü özünü Azərbaycan Prezidentinin idarəetmə təcrübəsində bu cür pozitiv və novatorçu yöndən nümayiş etdirir.

Vətəndaşlarla birbaşa təmaslara üstünlük verən, özünəməxsus təmkin və həssaslıqla onların problemlərini dinləyən, bu problemlərin həlli üçün qəti tapşırıqlar verən cənab Prezident İlham Əliyevin tələbkarlığı ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir, xalqın öz Prezidentinə olan inamını, etimadını daha da artırır.

Xalqla dialoq, möhtəşəm layihələrin geçəkləşdirilməsində bu tükənməz güc mənbəyi Prezidentin nitqlərində həmişə əsas istinad nöqtəsidir: "Bizim bütün proqramlarımız xalq tərəfindən dəstəklənir. Əks təqdirdə onların heç biri həyata keçirilə bilməzdi. Əgər bu dəstək olmasaydı, əgər həmrəylik olmasaydı, bizim təşəbbüslərimiz xalq tərəfindən dəstəklənməsəydi, bunların heç birini edə bilməzdik. Azərbaycanın müasir tarixi, bizimlə eyni taleyi yaşayan digər ölkələrin tarixi onu göstərir ki, harada iqtidar tərəfindən irəli sürülmüş təşəbbüslər xalq tərəfindən dəstəklənirsə, orada həm həmrəylik var, həm sabitlik, həm də inkişaf var".

Praqmatizm, səmimilik, siyasi iradə və qətiyyətlilik, məqsədyönlülük, mütərəqqi islahatlara meyillilik, öz siyasətini reallaşdırarkən hər bir fərdin, qrupun, ümumilikdə toplumun maraqlarını nəzərə almaq qabiliyyəti kimi mühüm keyfiyyətlər Prezident İlham Əliyevin fenomen siyasi lider obrazını şərtləndirən mühüm elementlər sırasında xüsusi vurğulanmalıdır. Azərbaycan Prezidentinin ötən dövr ərzində inamla davam

etdirdiyi sosial-iqtisadi inkişaf strategiyası, böyük əzmlə həyata keçirdiyi islahatlar həm də Onun yüksək idarəçilik qabiliyyətinin və mükəmməl iş təcrübəsinin əyani təzahürüdür.

Ölkə başçısının ötən illər ərzində Azərbaycanda siyasi barışığın, vətəndaş həmrəyliyi və sülhünün təmin olunması, əksqütblü qüvvələr arasında etimad mühitinin formalaşdırılması istiqamətində atdığı addımlar onun ədalətli rəhbər obrazını şərtləndirən amillər sırasında xüsusi yer tutur.

Ölkədə kadr siyasəti və dövlət idarəçiliyi məsələlərində Azərbaycanın bütün vətəndaşlarının iştirakının təmin edilməsi, müxalifətin sağlam, konstruktiv dialoqa dəvət olunması, əldə edilən iqtisadi nailiyyətlərdən hamının öz bacarıq, zəhmət və əqli imkanlarına görə bəhrələnməsi Prezidentin milli birliyin möhkəmləndirilməsi istiqamətində atdığı addımlardır.

Dövlət başçısının çevik və işlək mexanizmlər üzərində gerçəkləşdirdiyi uğurlu sosial-iqtisadi siyasət nəticəsində bu gün Azərbaycanın dövlət büdcəsinin, respublikamızın valyuta ehtiyatlarının, ölkəyə investisiya qoyuluşunun artımındakı, yeni iş yerlərinin açılmasındakı dinamika sosial-iqtisadi inkişaf strategiyasının uğurlu nəticələri kimi dəyərləndirilməlidir.

İqtisadiyyatda mütərəqqi inkişaf meyillərinin daha da sürətləndirilməsi, bu prosesdə yüksək dinamizmin təmin olunması yollarının nəzəri-praktiki və konseptual əsaslarını özündə əks etdirən dövlət proqramlarının qəbul olunması Prezidentin öz qarşısına qoyduğu məqsədlərin reallaşdırılmasında etibarlı və işlək bir vasilədir.

Regionların tarazlı və davamlı inkişafı, sosial infrastrukturun yenidən qurulması, bölgələrdə sahibkarlığın, özəl sektorun tərəqqisi, iqtisadiyyatın neft amilindən asılılığının qeyri-neft sektorunun inkişafı hesabına aradan qaldırılması üçün kompleks tədbirlər sistemi müəyyənləşdirən dövlət proqramlarında cənab İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin prioritet istiqamətləri elmi dəlillərlə əsaslandırılmışdır.

Həyata keçirilən tədbirlər nəticəsində əhalinin maddi-rifah halı yaxşılaşır, vətəndaşların sosial müdafiəsi tədbirləri gücləndirilir, respublikanın bütün regionlarında aparılan tikinti-abadlıq tədbirləri ilə ölkədə mükəmməl infrastruktur sistemi qurulur, yeni məktəblər, səhiyyə müəssisələri, mədəniyyət ocaqları inşa edilir. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın irəli sürdüyü sosial-mədəni layihələr də dövlətin bu sahədə apardığı siyasətə ictimai dəstək nümunəsi kimi böyük rəğbət doğurur.

Cənab İlham Əliyevin irəli sürdüyü "Ən böyük siyasət real, konkret işdir" prinsipi özünün bariz təcəssümünü qısa bir zaman ərzində şəhər və kəndlərimizin abadlaşan simasında, paytaxtda və regionlarda işə salınan müəssisə və sənaye nəhənglərinin timsalında, açılmış yüz minlərlə iş yerində çalışıb ailəsinə çörək aparan həmvətənlərimizin məmnunluq yağan çöhrəsində, inşa olunmuş, yaxud yenidən qurulmuş minlərlə məktəbin işıqlı sinif otaqlarından eşidilən xoşbəxt uşaq səslərində, istifadəyə verilmiş yüzlərlə müasir səhiyyə ocağında müalicə alanların şükranlıq duyğularında tapır. Bu sıraya paytaxtın qürur mənbəyinə çevrilən möhtəşəm tikililəri, körpüləri, yeraltı keçidləri, təzə salınan yolları, yenidən qurulan bağ və parkları da əlavə etsək, böyük quruculuq salnaməsi yaranar.

Bu gün Azərbaycanın mədəniyyətlərarası dialoq məkanına çevrilməsi, milli-mənəvi dəyərlərimizin qorunması və bütün dünyada təbliği, cəmiyyətdə sivil ənənələrin bərqərar olması, müasir bilik və vərdişlərə yiyələnmiş milli ruha bağlı gənc nəslin formalaşması müstəqil Azərbaycanın gələcəyinə ən qiymətli töhfələrdir.

Ulu öndər Heydər Əliyevin dövlətçilik fəlsəfəsi öyrədir: "Xalq dövlət üçün yox, dövlət xalq üçündür. Dövlət onun ərazisində yaşayan əhalinin təminatçısı olmalıdır".

Bu gün müstəqil Azərbaycan dövləti öz vətəndaşlarının təhlükəsizliyinin, maddi-rifahının, mədəni inkişafının qüdrətli təminatçısıdır və ölkəmizin müstəqillik tarixi dövründə əldə edilmiş ən böyük nailiyyət də elə məhz budur...

**"Yeni Azərbaycan".-**2012.-21 aprel.-№70.-S.5.

## DAYANIQLI VƏ SABİT İNKİŞAFA YOL AÇAN HEYDƏR ƏLİYEV İDEYALARI

**Süleyman İSMAYILOV,**
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının
Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri,
YAP Siyasi Şurasının üzvü

Dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünü uğurla qeyd edən Azərbaycanın bütün sahələrdə qazandığı misilsiz nailiyyətlər artıq dünyanın diqqətini cəlb edir, onun heyrətamiz iqtisadi, sosial və siyasi qələbələri həm beynəlxalq təşkilatlar, həm də tanınmış siyasi xadimlər tərəfindən etiraf olunur. Respublikamızın dayanıqlı və sabit inkişafının səbəbləri öyrənilir, xüsusilə MDB ölkələrində bu təcrübədən bəhrələnməyə çalışırlar. Azərbaycanın bugünkü inkişaf yolunun əsas istiqamətlərindən danışarkən birmənalı şəkildə qeyd etmək lazımdır ki, bu inkişaf ilk növbədə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi siyasi xəttin ardıcıl davam etdirilməsinin nəticəsidir.

Bu gün Azərbaycan öz təbii sərvətlərindən bəhrələnərək iqtisadi qüdrətini artırır və bununla da xalqının daha firavan yaşamasını təmin edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, indi Azərbaycanın iqtisadi və enerji siyasəti həmçinin ölkənin siyasi çəkisinə transformasiya olunur. Bu, onun beynəlxalq aləmdə, xüsusilə regionda söz sahibinə çevrilməsinə, əhalinin güzəranının gündən-günə yaxşılaşmasına, ən başlıcası, respublikanın daha yüksək inkişaf pilləsinə yüksəlməsinə və özünün gələcək inkişaf istiqamətlərini qətiyyətlə müəyyənləşdirməsinə imkan verir. Artıq Azərbaycan özünü modernləşən, ən müasir texnologiyaları tətbiq edən, dünyanın ən qabaqcıl ölkələri səviyyəsinə çatmağa can atan stabil, demokratik bir ölkə, bütün məsələlərdə etibarlı beynəlxalq tərəfdaş kimi tanıtmışdır.

Bu, bir həqiqətdir ki, Azərbaycanın bugünkü qələbələri ulu öndər Heydər Əliyevin başladığı əzəmətli işlərin davamıdır. Vaxtilə respublikaya rəhbərlik etdiyi dövrdən özünü çox uzaqgörən dövlət xadimi olduğunu təsdiq etmiş, gördüyü hər bir işlə, atdığı hər bir addımla bugünkü nailiyyətlərimizin təməlini qoymuş Heydər Əliyevin siyasi xətti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən inamla həyata keçirilir. Heydər Əliyev ideyalarına sadiq olan və bu ideyaları rəhbər tutan, hazırda Azərbaycanı bütün dünyada ləyaqətlə təmsil edən və adı dünyanın aparıcı siyasətçiləri ilə yanaşı çəkilən Prezident İlham Əliyev respublikaya rəhbərlik etməyə başladığı ilk gündən Heydər Əliyev ideyalarının, Heydər Əliyev siyasi xəttinin alternativi olmadığını və onun müəyyən etdiyi strategiyanı həyata keçirməklə Azərbaycanın sürətli inkişafını təmin edəcəyini bildirmişdir.

Keçdiyimiz qısa tarixi dövr, xüsusilə son 8 ildə görülən işlər sübut edir ki, Heydər Əliyev ideyalarının reallaşdırılması üçün göstərilən səylər öz bəhrəsini verir və vaxtilə Heydər Əliyevin həyata keçirdiyi düşünülmüş və məqsədyönlü tədbirlər Azərbaycanın bugünkü və gələcək problemlərinin həllinə, müstəqilliyimizin möhkəmləndirilməsinə, dövlətimizin və xalqımızın tərəqqisinə yönəlmişdir. Azərbaycanın Prezidenti İlham Əliyev də ulu öndərin yolunu davam etdirir, bu gün respublikada aparılan işlərin məqsədini, özünün əsas fəaliyyət prinsipini çox aydın ifadə edərək deyib: "Əgər gələcəyi düşünməsəm, bu günün problemlərini həll etmək çox çətin olacaqdır. Bizim bu gün həll etdiyimiz problemlər gələcəyə yönəlibdir. Dünya tərəqqi edir. Biz ona çatmalıyıq".

Ölkə Prezidentinin bu mövqeyi onun keçdiyi Heydər Əliyev məktəbinin ənənələrinə və Heydər Əliyev ideyalarına sadiqliyinin bir nümunəsidir. Yəni, həmişə irəliyə can atmaq, həmişə gələcəyi düşünmək və gələcəkdə daha müsbət nəticələr verəcək məsələləri həll etmək, son nəticədə ölkənin sabit, dayanıqlı və dinamik inkişafını təmin etmək əsas məsələ kimi qarşıya qoyulur.

Azərbaycan xalqının dövlətçilik tarixinin ən parlaq simalarından biri olan Heydər Əliyev bütün həyatı boyu Vətəninin, xalqının gələcəyini düşünmüş, Azərbaycanın müstəqilliyinin əbədiliyinə bütün varlığı ilə inanaraq bu dövlətin ideya əsaslarını, strateji inkişaf istiqamətlərini konkret olaraq müəyyənləşdirmişdir. Bu ideyalar bugünkü və gələcək Azərbaycan üçün kompas rolunu oynamış, bu gün də, sabah da, bir sözlə, Azərbaycan dövləti durduqca həmin ideyalar yaşayacaq və ölkəmizi, xalqımızı daha xoşbəxt, daha firavan gələcəyə aparacaqdır.

Ümumiyyətlə, dünyanın digər böyük şəxsiyyətləri kimi, Heydər Əliyevin də keçdiyi həyat yolu, yaşadığı ömür ona görə tarixə dönmüşdür, ona görə tarixdə yaşayır ki, Heydər Əliyev həmişə gələcəyi - xalqının, millətinin, dövlətinin taleyini düşünmüş, bu gələcəyin daha gözəl, daha parlaq olması üçün var gücü ilə çalışmış, öz ideyaları ilə bu işıqlı gələcəyə aparan yollara işıq salmış, yüzlərlə, minlərlə insanı, yəni bütün Azərbaycan xalqını vahid və nəcib amallar uğrunda mübarizəyə səfərbər edə bilmiş, öz xeyirxah işləri, qətiyyəti, xarakter bütövlüyü ilə insanları irəli apara bilmişdi

Heydər Əliyev ideyalarının gücü və əbədiyaşarlığı ondadır ki, bu ideyalar böyük vətənpərvər insanın, fenomenal liderlik istedadına malik dövlət rəhbərinin keçdiyi çətin, kəşməkəşli, siyasi burulğanlara davam gətirən çox şərəfli həyat yolunda əldə olunan zəngin təcrübəyə və yüksək erudisiyaya, dünyagörüşünə əsaslanır.

Bu gün keçmişə nəzər salarkən və Heydər Əliyevin hələ respublikamız keçmiş Sovetlər İttifaqının tərkibində olduğu zaman Azərbaycan üçün gördüyü işləri qiymətləndirərkən bu böyük insanın ruhu qarşısında baş əyməyə bilmirsən. Heydər Əliyevin Azərbaycan tarixinin az qala yarım əsrlik bir dövrünün güzgüsünə çevrilmiş məruzə və çıxışlarını, dünyanın nüfuzlu siyasi xadimləri ilə keçirdiyi saysız-hesabsız görüşlərdə söylədiklərini izlədikcə Azərbaycan xalqı üçün nə qədər zəngin bir siyasi irs qoyub getdiyinə heyran qalırsan.

Ulu öndər Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə rəhbərlik etdiyi 15 ilə yaxın dövr ərzində respublikanı geridə qalmış və yalnız xammal mənbəyi sayılan aqrar respublikadan inkişaf etmiş sənaye respublikasına çevirməyə müvəffəq olmuş, adı heç yerdə çəkilməyən Azərbaycanı qısa müddətdə sovet respublikaları arasında ön sıralara çıxarmağa, ən sürətlə inkişaf edən bir respublikaya çevirməyə nail olmuşdu.

Heydər Əliyev çox gözəl bilirdi ki, respublikanın inkişafı ilk növbədə onun iqtisadi qüdrətini artıran enerji təminatının yaxşılaşdırılmasından, sənaye potensialının yaradılmasından, elm və mədəniyyətinin, ən başlıcası, insan potensialının inkişaf etdirilməsindən asılıdır. İttifaq rəhbərliyinin göstərdiyi maneələrə baxmayaraq o, iradəsindən dönmür, bütün vasitələrlə bu maneələri aradan qaldırmağa çalışır və bunu bacarırdı. Çox sonralar - 2000-ci il sentyabrın 5-də Moskvanın "Kommersant" qəzetinin müxbirinə verdiyi müsahibədə həmin illəri xatırladaraq demişdi: "Mən istəyirdim ki, Azərbaycan müstəqil, ilk öncə iqtisadi cəhətdən müstəqil olsun. Çünki hər hansı bir müstəqilliyin əsasını iqtisadiyyat təşkil edir. Məsələn, mən çoxlu su elektrik stansiyası tikdirmişdim. Moskvada mənə deyirdilər, bu, sizin nəyinizə gərəkdir? İzah edirdilər ki, Sovetlər İttifaqının vahid enerji sistemi var və o, bütün ölkəni elektrik enerjisi ilə təmin edir. Bunun nə üçün lazım olduğunu mən onlara demirdim. Deyirdim, istəyirəm ki, bizdə yeni iş yerləri olsun və i.a. Mingəçevirdə hərəsi 250 meqavat gücündə 9 blokdan ibarət iri kompleks, Şəmkir Su Elektrik Stansiyasını tikdirdim. Yenikənd SES-in tikintisinə başladım. Sonra onun tikintisi dayandırıldı. Yeri gəlmişkən, mən qayıtdıqdan sonra Dünya Bankından kredit götürdüm, onu tikdirib başa çatdırdım və istismara verdim". Ulu öndərin bu fikirlərini izlədikcə Prezident İlham Əliyevin nə üçün Azərbaycanda energetikanın inkişafına bu qədər böyük əhəmiyyət verdiyini daha asan dərk edir, bu gün Azərbaycanda enerji istehsalını 6,5 min meqavata çatdıran yeni-yeni elektrik stansiyalarının nə üçün inşa edildiyini daha yaxşı anlayırsan.

1999-2002-ci illərdə Yaponiyanın Azərbaycanda səfiri olmuş, hazırda Yaponiya Beynəlxalq Münasibətlər İnstitutunun direktoru Toşiyuki Fucivaranın ötən il ulu öndərin 88-ci ildönümü ərəfəsində verdiyi müsahibəsində dediyi fikirlər maraq doğurur. O, Heydər Əliyevin xalqı qarşısında misilsiz xidmətlər göstərdiyini vurğulayaraq qeyd edirdi ki, Azərbaycanın bugünkü sürətli inkişafının təməlində məhz onun müəyyən etdiyi strategiya dayanır, onun Azərbaycan Prezidenti kimi fəaliyyəti yalnız öz xalqı üçün deyil, eyni zamanda, beynəlxalq münasibətlər nöqteyi-nəzərindən xarici dövlətlər üçün də çox faydalı olmuşdur.

Hazırda Azərbaycanın 2020-ci ilədək inkişaf konsepsiyası ətrafında gedən müzakirələr, bu konsepsiyada müəyyən olunacaq əsas hədəflər də Heydər Əliyev ideyalarından güc alır. Ulu öndərin dövlət başçısı İlham Əliyev tərəfindən müasir reallıqlara söykənməklə daha da zənginləşdirilən ideyaları, onun strategiyası, onun arzuları artıq həqiqətə çevrilmişdir. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, ölkənin enerji siyasəti Heydər Əliyevin neft strategiyası əsasında qurulmuşdur və bu strategiya dünyanın müasir tələblərinə uyğunlaşdırılmış, zənginləşdirilmişdir.

Ulu öndərin adını daşıyan, nəinki Azərbaycanda, eləcə də dünyada çox böyük və xeyirxah işləri ilə tanınan Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın dediyi kimi, uzaq 1993-cü ildə heç də hamı inanmırdı ki, gün gələcək Heydər Əliyevin bütün arzuları, ideyaları reallaşacaqdır.

Ümummilli lider Heydər Əliyevin ölməz ideyaları təkcə enerji siyasətimizi deyil, bütövlükdə Azərbaycanın inkişaf strategiyasını müəyyənləşdirmişdir və həmin strategiyanın ardıcıl həyata keçirilməsi bu gün də ölkəmizi sürətlə irəli aparır. Vaxtilə onun cəsarət və uzaqgörənliklə həyata keçirdiyi islahatlar olmasaydı, Azərbaycanın indiki inkişaf səviyyəsi ancaq xəyal olaraq qala bilərdi.

Ümummilli lider özünün qurub yaratdığı və ilk gündən respublikanın aparıcı siyasi qüvvəsinə çevrilmiş Yeni Azərbaycan Partiyasının 2001-ci il noyabrın 21-də keçirilən ikinci qurultayında Azərbaycanın 1993-cü ildən sonra əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirərək, bu dövrdə cəmiyyətdə aparılmış islahatların məqsədini və mahiyyətini belə izah edirdi: "Bizim əsas məqsədimiz ondan ibarət olubdur ki, Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirək və inkişaf etdirək. Biz bunu etmişik və artıq Azərbaycanda dövlət müstəqilliyi sarsılmazdır, dönməzdir və əbədidir". Ulu öndərin böyük qürur və iftixarla dediyi bu sözlərin arxasında onun titanik səyləri və qətiyyətli addımları dayanırdı. Özünün dediyi kimi, bu, öz-özünə yaranmamışdı: "Ancaq

bunun üçün çox işlər görmək lazım idi. Təkcə elə deyəsən ki, biz dövlət müstəqilliyini möhkəmləndiririk... Nə cür möhkəmləndirirsən? Nə edirsən? Biz iftixar hissi ilə deyə bilərik ki, 1993-cü ilin o ağır böhran ilindən ölkəmizi çıxardıq və böhran vəziyyətini ləğv etdik, ictimai-siyasi sabitlik yaratdıq və onu qoruyuruq".

Heydər Əliyev çox gözəl bilirdi ki, yeni Azərbaycan dövlətinin qurulması və möhkəmləndirilməsi, keçmiş sosializm sistemi münasibətlərinin yeni münasibətlərlə əvəz edilməsi, müasir dünyanın tələbləri ilə ayaqlaşa bilən bir dövlətin qurulması bütün sahələrdə dərin islahatların aparılmasından, insanların şüurunu tədricən dəyişməkdən asılıdır. Odur ki, ölkənin müharibə şəraitində olmasına baxmayaraq böyük risk və qətiyyətlə həmin islahatların konsepsiyasını hazırlayıb ardıcıl həyata keçirirdi. Onların müsbət nəticələri barədə isə Yeni Azərbaycan Partiyasının üzvləri və xalq qarşısında belə hesabat verirdi: "Bu gün qürur hissi ilə deyə bilərik ki, Azərbaycanda yeni bir sistem yaranıbdır. Dünya standartlarına yaxınlaşan, dünya standartlarına çatmağa çalışan hüquqi, demokratik, dünyəvi dövlət yaranıbdır. Budur bizim nailiyyətimiz... Bu, bütün sahələrdə özünü göstərir. Bizim Konstitusiyamız, qəbul etdiyimiz qanunlar, onların icrası, cəmiyyətə bütün sahələrdə verilən azadlıq, sərbəstlik - bunlar hamısı bizim dövlətçilik anlayışımızın tərkib hissələridir".

Keçmiş Sovetlər İttifaqında 70 il hökm sürən rejimin bütün ağırlıqlarını çiyinlərində daşımış bu müdrik insan bir daha Azərbaycanın həmin quruluşa qayıtmayacağını qətiyyətlə deyir və bunu cəmiyyətə təlqin edərək Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi münasibəti ilə 2000-ci il iyulun 21-də keçirdiyi görüşdə bildirirdi: "Keçmiş quruluşa yol yoxdur, sosializmin, yaxud kommunizmin bərpasına yol yoxdur, totalitarizmə yol yoxdur, bunların heç birisinə yol yoxdur. Biz irəliyə gedirik, demokratiya, plüralizm, mətbuat azadlığı ilə gedirik və bu yolla da gedəcəyik. Bu, asan yol deyildir. Bu, çətin yoldur".

Heydər Əliyev fenomeninin əsas xüsusiyyətlərindən biri də ondan ibarət idi ki, o, başladığı işlərin nəticəsini əvvəlcədən görür və hesablaya bilirdi. Buna görə də cəsarətlə elan edirdi ki, Azərbaycan müstəqilliyini elan edəndən sonra bəyan etdiyi demokratiya, bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat, dünya birliyinə, dünya iqtisadiyyatına inteqrasiya prinsiplərini həyata keçirməyə başlamış, həm də böyük nailiyyətlər əldə etmişdir və elə yola çıxmışdır ki, artıq bundan sonra daha da sürətlə irəliləyəcəkdir.

Heydər Əliyevi digər siyasi xadimlərdən fərqləndirən cəhətlərdən biri də bu idi ki, o, iqtisadi məsələlərin mahiyyətini çox gözəl bilir, bu sahədə dünya təcrübəsinin Azərbaycanda tətbiqinə böyük əhəmiyyət verirdi. Məhz onun səyləri və rəhbərliyi altında hazırlanmış dövlət əmlakının birinci və ikinci özəlləşdirmə proqramları əsasında respublikada yeni iqtisadi münasibətlərin əsası qoyulmuş, özəl sektor yaradılmış, respublikaya böyük xarici sərmayələr cəlb edilmiş, sahibkarlıq üçün geniş imkanlar açılmış, sovet dövründən qalma fabrik və zavodlar dünya bazarına çıxarıla biləcək məhsullar istehsalına yönəldilmək üçün yerli və xarici sahibkarlara verilmişdir. Bununla yeni sənaye sahələri yaradılmaqla bərabər, yeni iş yerlərinin açılmasına da başlanmışdır. Heydər Əliyev inanır və bəyan edirdi ki, Azərbaycan bu sahədə düzgün yoldadır. 2002-ci ildə Dünya Bankının Cənubi Qafqaz üzrə direktoru xanım Cudi O Konnor ilə görüşdə Azərbaycanın tutduğu islahatlar yolunu səciyyələndirərək deyirdi: "Azərbaycan iqtisadi islahatların keçirilməsi sahəsində doğru yoldadır. Çox böyük nailiyyətlər əldə edibdir. Biz bu yolu bəyənmişik, bu yolla gedirik və gedəcəyik".

Uzaqgörən siyasətçi kimi özünü hələ sovet dövründə təsdiq etmiş Heydər Əliyev yeni dövrün, yeni tarixi şəraitin xüsusiyyətlərini nəzərə alaraq Azərbaycanın inkişaf yolundan danışarkən deyirdi: "Biz çalışırıq və bundan sonra da çalışacağıq ki, inkişaf etmiş ölkələrin səviyyəsinə çatmaq üçün Azərbaycanda tərəqqi daha da sürətləndirilsin. Ancaq bilmək lazımdır: bunların hamısını bir gündə, bir ayda, bir ildə əldə etmək mümkün deyildir. Buna həm zaman lazımdır, həm də iradə, inam lazımdır. Zaman bizdən asılı deyildir. Ancaq iradə, inam özümüzdən asılıdır. Hamı bilməlidir ki, Azərbaycan dövlətində, Azərbaycan hakimiyyətində bu iradə, bu inam var".

Heydər Əliyev Azərbaycan cəmiyyətini saflaşdırmış, gələcək nəsillər üçün sivil dəyərlərə əsaslanan, milli-mənəvi dəyərləri yaşatmağa qadir olan bir ölkə miras qoymuşdur. Vaxtilə gənclərlə keçirdiyi görüşlərdə dəfələrlə qeyd etmişdir ki: "Bizim gələcəyimiz gənclərdir... Biz bugünkü gənclərə çox yüksək amallara, mənəvi keyfiyyətlərə, yüksək iqtisadi potensiala malik olan dövlət, ölkə əmanət edəcəyik".

Doğrudan da, 1993-cü ildən sonra keçirilən islahatların miqyası və sürəti heyrətamizdir. Bunlardan təkcə kənd təsərrüfatı və torpaq islahatlarını göstərmək kifayətdir. Ulu öndər artıq 2001-ci ildə deyirdi: "Biz konkret olaraq hansı sahədə nələr əldə etmişik? Məsələn, kənd təsərrüfatında biz 1995-1996-cı illərdə torpaq islahatı keçirdik. O vaxt bu bizim üçün cəsarətli addım idi. Çünki MDB ölkələrinin heç birində torpaq islahatı keçirilməmişdir və çoxunda bu günə qədər də aparılmamışdır". Məhz Heydər Əliyevin bu cəsarətli addımları sayəsində Azərbaycan kəndlisi öz torpağının əsl sahibinə çevrilmiş və bunun böyük bəhrəsini bu gün də görməkdədir. Respublikanın kənd təsərrüfatında son illərdə qazanılmış qələbələr isə göz qabağındadır. Ulu öndərin bu sahədə başladığı işlər müstəqilliyimizin sonrakı illərində də uğurla davam etdirilmiş, Prezident İlham

Əliyevin kənd təsərrüfatına göstərdiyi böyük kömək sayəsində artıq Azərbaycan öz ərzaq təhlükəsizliyini təmin edən bir dövlətə çevrilmişdir.

Heydər Əliyev çox gözəl bilirdi ki, Azərbaycanın bir dövlət kimi daim yaşaması, müstəqilliyini qoruyub saxlaması, regionda mövcud olan gərgin siyasi şəraitdə ona dünyanın böyük gücləri tərəfindən göstərilən təzyiqlərə davam gətirməsi, ölkənin zəngin təbii sərvətlərinin qorunması və bu sərvətlərdən Azərbaycan xalqının rifahı naminə istifadə edilməsi üçün güclü və demokratik dövlət, bu dövlətin möhkəm hüquqi bazası, dinamik inkişafına təkan verən iqtisadi sistemi və tarazlı beynəlxalq siyasəti olmalıdır. Buna görə də öz çıxışlarında dönə-dönə qeyd edirdi: "...bu gün Azərbaycana güclü dövlətçilik lazımdır. Əgər Azərbaycanda güclü dövlətçilik olmasa, ölkəmizin həm içindən, həm də kənarından Azərbaycanı dağıdacaqlar. Bunu bilməlisiniz".

Ulu öndər həmişə vurğulayırdı ki, Azərbaycan xalqı tarixin ona verdiyi böyük müstəqillik şansından ağıl və məharətlə istifadə etməli, dünyada yüzlərlə xalqın mövcudluğuna baxmayaraq, onlardan az bir hissəsinin müstəqil dövləti olduğunu dərk etməli, bir daha bu misilsiz nailiyyəti əldən verməmək üçün azərbaycançılıq kimi yüksək məfkurə ətrafında sıx birləşməli, millətlər içində öz imzasını əbədi qoruyub saxlamaq üçün daim səy göstərməli, ayıq-sayıq olmalıdır.

Dünyada və regionda mövcud olan geosiyasi vəziyyəti dərindən təhlil edən Heydər Əliyev Azərbaycanın bütün dövlətlərlə, o cümlədən yaxın qonşuları ilə sıx əlaqələrini yarada bilmiş, Azərbaycanın iqtisadi və siyasi maraqlarını qoruyaraq Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsinə nail olmuş, Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasına, enerji daşıyıcılarının alternativ ixrac istiqamətlərinin əldə olunmasına yol açmışdır. Hələ 2000-ci ildə bu kəmərin tikintisinə şübhə ilə yanaşanlar olsa da Azərbaycanın iqtisadi inkişafında yeni bir mərhələnin başlanğıcına təkan vermiş və çox böyük siyasi maneələr dəf edilməklə, eyni zamanda böyük zəhmətlə başa gəlmiş bu kəmər haqqında fəxrlə deyirdi: "Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri var, olacaq və yaşayacaqdır. Bu, elə bir neft kəməridir ki, yüz il, bəlkə də ondan da çox yaşayacaqdır". Doğrudan da, 2006-cı ildə bu kəmər işə başladı və Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, Azərbaycanın iqtisadi müstəqilliyinin gücləndirilməsində müstəsna rol oynayır. Bunlar hamısı son nəticədə ölkənin iqtisadi müstəqilliyini gücləndirməklə yanaşı, onun tərəqqisinə, inkişaf etmiş ölkələr səviyyəsinə yüksəlməsinə şərait yaratmışdır. Heydər Əliyev bu layihələrin həyata keçirilməsində böyük səbir və təmkinlə, eyni zamanda heyrətamiz iradə və qətiyyətlə hərəkət edirdi.

Ulu öndər Azərbaycanda sahibkarlığı, bir sözlə, özəl sektoru inkişaf etdirmək üçün ona hər vasitə ilə dəstək verir, bu prosesi sürətləndirmək, bu sahədə yaranan maneələri aradan qaldırmaq üçün bilavasitə yerli və xarici sahibkarların özü ilə vaxtaşırı görüşlər keçirir, hətta elə həmin görüşlər zamanı anket sorğusu vasitəsilə onların rəylərini öyrənirdi. Həmin sorğuların nəticələrini ciddi surətdə araşdıraraq problemlərin aradan qaldırılması üçün qəti tədbirlər görürdü.

Belə görüşlərdən biri də xarici sahibkarlarla keçirdiyi görüş idi. Həmin görüşdə o, üzünü xarici sahibkarlara tutaraq deyirdi: "Azərbaycanda özəl sektorun fəaliyyətinə, biznesin inkişafına maneələrin, əngəllərin bir qismini biz bilirik və lazımi tədbirlər görürük. Bugünkü görüş də Azərbaycan Prezidentinin biznes nümayəndələri ilə daha yaxın münasibətlər yaratması məqsədi daşıyır. Bu münasibətlər də yalnız və yalnız biznesin inkişafını təmin etməkdən, xarici sərmayəni daha çox cəlb etməkdən və ölkəmizin iqtisadiyyatını inkişaf etdirməkdən ibarətdir".

Hələ sovet dövründə öz prinsipiallığı və neqativ hallarla barışmazlığı ilə tanınmış Heydər Əliyev yaxşı bilirdi ki, sahibkarlığın genişlənməsində, ümumiyyətlə, cəmiyyətin inkişafında ən böyük bəlalardan biri korrupsiya hallarıdır. Buna görə də korrupsiyanın kökünün kəsilməsini, buna imkan yaradan səbəblərin aradan qaldırılmasını, ən başlıcası, bütün sahələrdə şəffaflığın təmin edilməsini ön plana çəkirdi. Bu barədə açıq və kəskin danışmaqdan çəkinməyərək deyirdi: "Korrupsiyanı inkar etmək mümkün deyildir. Korrupsiya ilə mübarizə etmək lazımdır. Mübarizə də Azərbaycanda gedir və gedəcəkdir. Buna heç kəsin şübhəsi olmasın. Bizim iqtisadi tədbirlərimizin də çoxu - əgər onları yaxşı həyata keçirə bilsək - məhz korrupsiyanın qarşısını ala biləcəkdir. Başqa vasitələrdən də istifadə olunacaqdır. Bunu hamı bilməlidir".

Heydər Əliyev bunu real surətdə həyata keçirmək üçün ilk növbədə hüquqi bazanın və işlək mexanizmlərin yaradılmasını təmin etmişdi, bu mexanizm və strukturların səmərəli fəaliyyət göstərməsinə ciddi nəzarət edirdi. Məhz Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Dövlət Neft Fondunun şəffaf fəaliyyəti buna əyani misaldır. Həmin prinsiplərin və ənənələrin bu gün ölkəyə rəhbərlik edən dövlət başçısı İlham Əliyev tərəfindən daha qətiyyətlə davam etdirildiyini heç kəs inkar edə bilməz. Azərbaycan Prezidenti bu məsələləri daim nəzarətdə saxlamaqla yanaşı, korrupsiyanın və bürokratiyanın aradan qaldırılmasının daha müasir vasitələrindən istifadə edir. Bu vasitələr ilk növbədə elektron hökumətin yaradılmasına yönəldilmiş tədbirlərdir. Azərbaycan Prezidenti İlham Əliyev vaxtilə Heydər Əliyevin informasiya və kommunikasiya texnologiyalarının inkişafı sahəsində

müəyyən etdiyi strategiyaya uyğun olaraq bu sahəni ən müasir səviyyəyə qaldırmaqla məmur-vətəndaş təmaslarının get-gedə azaldılmasını, bilavasitə əhalini narahat edən belə təmasların elektron formada həyata keçirilməsini təmin edir.

Azərbaycanın Heydər Əliyev tərəfindən təməli qoyulan dövlət müstəqilliyinin möhkəmlənməsinə xidmət edən siyasi və iqtisadi inkişaf konsepsiyası ondan sonrakı illərdə ulu öndərin ən sadiq davamçısı İlham Əliyev tərəfindən yeni geosiyasi şəraitdə, dünya iqtisadiyyatında baş verən kataklizmlər nəzərə alınmaqla yeni ideyalarla zənginləşdirilmiş və böyük bacarıqla tətbiq edilmişdir.

Prezident İlham Əliyev bu müdrik insanın ideyalarını rəhbər tutaraq ölkəyə başçılıq etdiyi son 8 ildə Azərbaycan iqtisadiyyatını üç dəfə artıra bilmiş, Azərbaycanı dayanıqlı və sabit inkişaf edən, öz çoxşaxəli iqtisadiyyatını yaratmış, vaxtilə xarici investisiyalardan asılı olduğu halda, indi xaricdə investisiya qoymaq imkanı olan bir ölkəyə çevirmiş, Azərbaycanda ən müasir texnologiyaları tətbiq etməklə ölkənin gələcək inkişafını sürətləndirən çox böyük potensial yaratmışdır.

Dövlət başçısının hazırlayıb həyata keçirdiyi çoxsaylı proqramlarla yanaşı, indi Azərbaycan 2020-ci ilə qədər olan dövr üçün inkişaf konsepsiyasının işlənməsi barədə qəbul etdiyi qərar onun ölkə qarşısında daha böyük vəzifələr qoymasından xəbər verir. Bu il yanvarın 27-də Nazirlər Kabinetinin geniş iclasında Prezident qeyd etmişdir ki, 2023-cü ilədək Azərbaycanda ümumi daxili məhsulun həcmi iki dəfə artırılacaqdır. İlk baxışda fantastik görünən bu ideyanın uğurla reallaşacağına heç bir şübhə yoxdur. Çünki Heydər Əliyev ənənələrini inamla davam etdirən İlham Əliyevin indiyədək verdiyi heç bir vəd kağız üzərində qalmamış, onun qəbul etdiyi bütün proqramların çoxu həqiqətə çevrilmiş, qalanları da hazırda həqiqətə çevrilməkdədir.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ulu öndərin 88-ci ildönümü münasibətilə keçirilən təntənəli mərasimdə indiki şəraitdə Azərbaycanı dinamik inkişaf edən, öz ehtiyaclarını özü ödəyən müasir ölkə kimi səciyyələndirmiş, güclü iqtisadi təməl üzərində müasir siyasi sistemin formalaşdırılmasını, dövlətçiliyin əsaslarının möhkəmləndirilməsini, azərbaycançılıq ideologiyasının gücləndirilməsini bu gün üçün prioritet məsələlərdən hesab edərək, Azərbaycanın bütün uğurlarının təməlinin 1993-cü ildə Heydər Əliyev tərəfindən qoyulduğunu bildirmiş və bir daha qeyd etmişdir: "Bu gün inkişaf edən, güclənən Azərbaycan Heydər Əliyevin xatirəsinə olan hörmətimizin ən gözəl nümunəsidir. Biz bu yolla gedəcəyik. Heydər Əliyev siyasəti Azərbaycanda yaşayacaqdır. Biz bu yoldan dönməyəcəyik. Heydər Əliyev siyasətinə daim sadiq qalacağıq".**

**“Azərbaycan”.-**2012.-24 aprel.-N 88.-S.5.

# UĞURLU XARİCİ SİYASƏTİN BANİSİ

**Novruz MƏMMƏDOV,**
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının
Xarici əlaqələr şöbəsinin müdiri,
YAP Siyasi Şurasının üzvü

**Ümummilli lider Heydər Əliyevin çoxəsrlik dövlətçiliyimiz tarixində müstəsna yeri vardır. Müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, siyasi şüurun, siyasi həyatın yarıməsrlik bir dövrünü əhatə edən zaman kəsiyi Heydər Əliyevin adı, əməli fəaliyyəti ilə, gerçəkləşdirdiyi konkret işlərlə qırılmaz tellərlə bağlıdır. Heydər Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratmış və gələcəyə aparan yolları müəyyən etmişdir.**

Heydər Əliyevin fəal diplomatiyası nəticəsində Azərbaycan dünyanın demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail ola bilmişdir.

Heydər Əliyevin müasir beynəlxalq münasibətlərdə mövcud çağırış və təhdidlərə adekvat reaksiya nümayiş etdirərək özünü doğruldan, ölkənin milli və dövlətçilik maraqlarının təmin olunmasına uğurla xidmət edən çoxvektorlu müstəqil xarici siyasəti özünün konseptual bazisinə malikdir. Təməl ideyalar əsasında formalaşdırılmış həmin bazis ulu öndər Heydər Əliyev tərəfindən 1993-2003-cü illərdə Prezident olduğu dövrdə yaradılmışdır. Onun zəngin həyat və siyasi təcrübəsindən irəli gələn optimal qərarlar qəbul etmək bacarığı, intuisiyası və uzaqgörənliyi - bütün bunlar xalqın strateji məqsədlərinə xidmət edən intellektual və mənəvi-siyasi arsenaldır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, müəyyənləşdirilmiş, formalaşdırılmış bu daxili və xarici siyasət kursunu Prezident İlham Əliyev bu gün uğurla davam etdirir.

Bu məqalədə biz ulu öndər Heydər Əliyevin xarici siyasət kursunun bəzi konseptual məqamlarına toxunmaq istərdik.

İlk növbədə qeyd edək ki, Heydər Əliyev xarici siyasətinin on ili Azərbaycan tarixinə sülh yolu ilə əldə oluna biləcək maksimal mümkün nailiyyətlər dövrü kimi daxil oldu. Ötən əsrin 90-cı illərinin əvvəllərində dünyada yaranmış vəziyyəti yada salsaq, bu sözlərdə heç bir mübaliğənin olmadığı aydın görünər.

SSRİ-nin və onun müttəfiqlərinin soyuq müharibədə məğlubiyyəti beynəlxalq münasibətlərdə böyük dəyişikliklərlə nəticələndi. Qərb cəmiyyəti çərçivəsində Amerika Birləşmiş Ştatları alternativsiz və şəksiz lider dövlətə çevrildi. ABŞ-ın maraq və məqsədləri qlobal səciyyə kəsb etməyə başladı. Qısa zaman kəsiyində mühüm dəyişikliklər baş verdi. Bütün fəaliyyət sahələri sıçrayışşəkilli qloballaşdı. Əksəriyyəti genetik və funksional baxımdan Qərbə bağlı olan dünya siyasətinin transmilli korporasiyalar (TMK), transmilli banklar (TMB) kimi subyektlərinin beynəlxalq proseslərə təsiri hədsiz dərəcədə artdı. Beynəlxalq həyatın yeni subyektləri olan dövlətlərarası və qeyri-hökumət təşkilatları xüsusi inadkarlıqla prosesləri istiqamətləndirməyə başladılar.

Onların fəaliyyəti nəticəsində qlobal təşkilati-siyasi infrastruktur meydana gəldi ki, həmin infrastrukturun əsasında da dövlətüstü iqtisadi tənzimləməni, hərbi-siyasi əlaqələndirməni və hətta siyasi idarəetməni həyata keçirən inteqrasiya strukturları həddindən artıq fəallaşdı. NATO, Avropa Şurası, ATƏT və digər təşkilatlar beynəlxalq münasibətlərin aparıcı və istiqamətverici qüvvəsinə çevrildilər. Yeni dünya nizamının formalaşması prosesi başladı.

Keçid dövrünü yaşayan milli dövlətlər üçün dünyanın yeni siyasi vəziyyəti prioritetlərin dəyişməsi mənasını kəsb etdi. Beynəlxalq strukturlar iqtisadi inkişaf və siyasi quruculuq məsələləri ilə məşğul olmağı tələb etməyə başladılar. Onsuz da həm mühüm geosiyasi məkanda yerləşməsi, həm təbii resurslarla zənginliyi ilə transnasional qüvvələri cəlb edən Cənub Qafqaz regionu dövlətlərin təsir dairəsi uğrunda apardıqları mübarizəni daha da gücləndirdi. Eyni zamanda, milli dövlətlərin öz xarici təhlükəsizliklərini təmin etməklə bağlı problemləri və məqsədləri kifayət qədər biganə yanaşma ilə qarşılaşaraq böyük maraqlar burulğanında kiçildilər, deklarativ bəyanatlardan başqa münasibətə layiq görülmədilər.

Burada beynəlxalq münasibətlərdə ideoloji özünüdərkin xüsusi rolunu qeyd etmək lazımdır. İdeoloji sistemlər dövlətdaxili, beynəlxalq, transmilli, qlobal səviyyələrdə bir-biri ilə toqquşurlar. Bir neçə onillik ərzində ikinci fövqəldövlətin mövcudluğu Qərbə əks güc mərkəzi olmuşdur. SSRİ təkcə ABŞ-ın hərbi və siyasi rəqibi deyil, həm də alternativ siyasi-ideoloji modelin daşıyıcısı idi. O, həm sosialist ölkələri, həm də Qərbin siyasi sistemi daxilində fəaliyyət göstərən subyektlər sırasında çoxsaylı siyasi və hərbi müttəfiqlərinin dəstəyindən faydalanırdı.

Yeni şəraitdə ideoloji özünüdərkin, yəni milli təcrübənin dərk edilməsinin Azərbaycan üçün rolu hədsiz dərəcədə əhəmiyyətli idi, çünki məhz ötən əsrin 90-cı illəri gələcək yolun riskli yeniliyini üzə çıxardı. Həmin illərin əvvəllərində Heydər Əliyevin qarşısında ciddi ideoloji problem dayanmışdı. Həmin problemi sadə yolla bu cür ifadə etmək olar: Qərb dünyasının əsas ideoloji məhsulu olan liberalizmi keçmiş sovet cəmiyyətinin qeyri-Qərb mentallığı ilə necə uyğunlaşdırmalı?

Sonrakı təcrübə bu problemi bütün açıqlığı ilə göstərdi. Postsovet ölkələrində islahatlarla bağlı ideoloji özünüdərk, aradan tez bir zamanda qaldırılması mümkün olmayan bir ziddiyyəti ortaya çıxardı. İslahatların əsas mənasına görə keçidin, yəni liberal demokratiya və bazar iqtisadiyyatı institutlarının yaradılmasının əsas subyekti milli dövlətdir, lakin həmin ölkələrdə biznes-struktur mövcud deyildi. Şəxsi kapital və burjua sinfi ötən əsrin əvvəlindəki inqilabi çevriliş dövründə məhv edilmişdi. Bu səbəbdən də milli dövlət tərəfindən həyata keçirilən liberal islahatların obyektiv nəticəsi islahatların aparıcı qüvvəsi kimi məhz milli dövlətin rolunun artması olmuşdur. İslahatların keçirilməsi zamanı postsovet ölkələrində iki fərqli fəaliyyət məntiqi yaranmışdı: dövlətin simasında "hakimiyyət məntiqi" və biznes-strukturların simasında "qazanc məntiqi". Heydər Əliyevin həyata keçirdiyi islahatların xüsusiyyəti onda idi ki, "hakimiyyət məntiqi" ilə "qazanc məntiqi"nin sintezi dövlət hakimiyyətinin özəl-korporativ hakimiyyət üzərində nəzarəti altında həyata keçirilirdi.

Beləliklə, liberal islahatların əsas yekunlarından birinin həyata keçirilməsi mümkün olmadı, yəni, milli dövlət dərhal liberal dövlətə çevrilə bilmədi; o öz səlahiyyətlərini məhdudlaşdırmadı, iqtisadiyyat və mədəniyyət sahələrindən çəkilmədi.

Bunun səbəblərini axtarsaq müstəqilliyimizin ilk ilində Azərbaycanın yaşadığı proseslərə nəzər salmaq kifayətdir. Liberal cəmiyyətə dərhal keçidin xoşbəxtlik gətirəcəyinə sadəlövhcəsinə və məsuliyyətsizliklə inanan bir illik hakimiyyət Azərbaycanı siyasi-iqtisadi böhran, hərc-mərclik qarşısında qoydu. Erməni separatçılarının azğınlığı ərazilərin işğalı prosesini daha da gücləndirdi. Daxildə hakimiyyətə gəlmək üçün mübarizə aparan müxtəlif dairələr və qruplar vətəndaş müharibəsindən belə çəkinmədilər. Xaricdə müxtəlif qüvvələr öz planlarını həyata keçirmək imkanı qazandılar. Azərbaycanın dünya birliyi və beynəlxalq təşkilatlardan gördüyü isə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının bu gün də kağız üzərində qalmış 4 qətnaməsi və "Azadlığa Dəstək Aktı"na ədalətsizliyin görünməmiş nümunəsi olan 907-ci düzəliş oldu.

Ölkənin strateji əhəmiyyət daşıyan müəssisə və sahələrinin məhz Azərbaycan kimi müstəqilliyini yenicə qazanmış və çox mürəkkəb geosiyasi məkanda yerləşən zəngin ölkədə dövlətin nəzarətində qalmasının zəruriliyi uzaqgörən və müdrik mövqe olaraq öz yaşarılığını sübut etdi. Nəticədə, özəl kapital Azərbaycanda dövləti ələ keçirə bilmədi. Liberal islahatlara xas olan bu ziddiyyət Azərbaycan Respublikasının daxili və xarici siyasətinin təməlində qalmaqdadır.

Qərb analitikləri tərəfindən dərk olunan bu təzad qeyri-Qərb cəmiyyətlərində islahatların perspektivi ilə bağlı müəyyən şübhə yaratmışdı. ABŞ Dövlət Departamentinin analitiki F.Fukuyama 1989-cu ildə bildirirdi ki, "Qərbin, Qərb ideyasının qələbəsi aşkardır..., liberalizmin heç bir həyatqabiliyyətli alternativi qalmamışdır". Amma 2001-ci ildə o, etiraf edirdi ki, "müasirləşmə nəzəriyyəsi Avropa təmayüllüdür və məqsədlərin müxtəlifliyini nəzərə almır". Bəlli oldu ki, "belə müasirləşmənin əleyhdarlarının ideyaları öz güc və inandırıcılığını saxlayır, nəticədə bir çox insanlar azad bazar iqtisadiyyatına əsaslanmış demokratik cəmiyyətə aparan bəşəriyyət üçün yeganə inkişaf yolunun müdafiəsindən çəkindilər". Fukuyama proqnozlaşdırırdı ki, "liberal demokratiyanın qarşılaşmalı olduğu əsas çətinliklər"ə qeyri-Qərb cəmiyyətlərində dərin səviyyədə - mədəniyyət səviyyəsində, yəni din, mənəviyyat, milli özünüdərk, adət-ənənə sahələrində rast gəlinir.

Əgər Fukuyamanın etiraflarını Azərbaycan reallığına tətbiq etsək, belə bir nəticəyə gəlmək olar: Heydər Əliyev kursu özünün böyük nailiyyətləri ilə bərabər, bir sıra mühüm xüsusiyyətləri ilə fərqlənir. Belə ki, Fukuyamanın qeyd etdiyi liberal müasirləşmənin çətinliklərinə baxmayaraq, məhz Heydər Əliyevin 1993-cü ildə ölkə rəhbərliyinə qayıdışı ilə Azərbaycan səmərəli dövlətçilik konsepsiyasına, iqtisadiyyatın dirçəldilməsi strategiyasına uyğun olaraq və xalqın sosio-mədəni irsinə əsaslanaraq, liberal demokratiya yoluna qədəm qoydu. Ölkənin ictimai-siyasi, sosial, iqtisadi, mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı, vətəndaşların və dövlətin qarşılıqlı mənəvi məsuliyyətinə əsaslanan dövlətçiliyin və sosial sabitliyin təməli qoyuldu. Dövlət cəmiyyətin bütövlüyünün etibarlı təminatçısına çevrildi. Azərbaycanın gələcəyi üçün məsuliyyəti öz üzərinə götürmüş Heydər Əliyev hədsiz gərgin zəhmət bahasına 1993-2003-cü illərdə yeni milli inkişaf strategiyası formalaşdırmağa müvəffəq oldu. Bu strategiya mədəniyyəttutumlu suverenlik ideyasına əsaslanırdı.

Mədəniyyəttutumlu suverenlik Azərbaycan Respublikasının daxili və xarici siyasətinin özəyi olmuşdur. Bu, xarici siyasət sisteminin prioritetlərinin milli mədəniyyət əsasında, o cümlədən dövlət quruculuğu mədəniyyəti zəminində qurulması deməkdir. Bu gün, 18 il keçdikdən sonra biz deyə bilərik ki, 1993-cü il

iyunun 15-də Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı məhdud suverenliyə malik ölkə taleyindən azad olan yeni milli tarixin başlanğıcı oldu.

Heydər Əliyevin daxili siyasəti hansı konseptual məqamlardan ibarət idi? Bu, millətin iqtisadi kapitalının sərbəstləşdirilməsi istiqamətində tədricən islahatlar həyata keçirən güclü dövlətin plüralist tipli demokratiyanın inkişafı və milli mədəniyyətin qorunması ilə sintezidir. Bütün sadalanan məqsədlər və onlarla bağlı dəyər oriyentirləri hər bir milli dövlətin iki fundamental əsasına - inkişafına və təhlükəsizliyə cavab verirdi.

Mədəniyyəttutumlu suverenlikdən danışdıqda aşağıdakıları nəzərdə saxlamaq lazımdır: Heydər Əliyev öz nitqlərinə hər şeydən əvvəl millətin mənəvi dünyasını əks etdirən anlayışları daxil edirdi. Məlum səbəblərdən onun siyasi çıxışlarında bu məqam adətən xüsusi vurğulanmırdı. Başqa sözlə, Heydər Əliyev çox mühüm iş görürdü: o, liberal nitqi öz siyasətinə - vətənpərvərliyə, suverenliyə, dövlətçiliyə uyğunlaşdırırdı. Heydər Əliyev nitqinin bu özünəməxsusluğu ölkədaxili mövzularda daha qabarıq şəkildə gözə çarpırdı. Amma məlum olduğu kimi, xarici siyasət daxili siyasətin davamı olaraq onunla vəhdət təşkil edir və onun ehtiyacları əsasında formalaşır.

1993-cü il iyunun 15-də ilk çıxışında Heydər Əliyev "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin müdafiəsini, gücləndirilməsini və inkişafını" əsas siyasi və mənəvi öhdəlik adlandırırdı. Çıxışın əsas mahiyyətini - "Nə olur-olsun müstəqillik itirilməyəcəkdir", "Azərbaycan Respublikası bundan sonra hər hansı bir dövlətin tərkibinə daxil olmayacaq, başqa dövlətin əsarətinə düşməyəcəkdir" - ideyaları təşkil edir. Heydər Əliyev ali məqsədi açıqlayır - Azərbaycan Respublikasının müstəqilliyi. Müstəqilliyin görünən əsasları ilə yanaşı - torpaqların azad olunması və qorunması - Heydər Əliyev müstəqilliyin mental atributunu, daha dəqiq desək: "vətəndaşların öz ehtiyaclarına uyğun öz dövlətlərini yaratmaq" hüququnu müəyyənləşdirir.

Müstəqillik mövzusu 1993-cü ildən Heydər Əliyevin çıxışlarında daim səslənirdi. O, 1993-cü il iyulun 4-də "Ostankino" teleşirkətinə müsahibəsində bildirirdi: "...Azərbaycan müstəqil dövlətdir və heç vaxt kiminsə vassalı və ya müstəmləkəsi olmamalıdır. ...Mən Azərbaycanı gələcəkdə azad müstəqil dövlət olaraq görürəm".

1993-cü il sentyabrın 14-də mətbuat konfransında Heydər Əliyev respublikanın çətinliklərini möhkəm dövlətçilik dayaqlarının olmaması faktı ilə əsaslandırırdı. Milli müstəqilliyin dönməzliyinə əmin olan Heydər Əliyev problemi "respublikanın öz dövlət siyasətini nə qədər tez həyata keçirmək və beynəlxalq miqyasda çox çətin daxili problemlərini həll etmək üçün öz dövlət və iqtisadi strukturlarını, institutlarını yarada biləcəyində" görürdü. Beləliklə, millətin lideri daxili problemlərin həllini xarici siyasətlə sıx əlaqələndirirdi.

1993-cü il oktyabrın 10-da dövlət başçısı vəzifəsinə başlayarkən Heydər Əliyev birinci dərəcəli praktiki məqsədləri bəyan etdi: "Dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət sistemini yaratmaq, dövlət atributlarını möhkəmləndirmək və inkişaf etdirmək, ərazi bütövlüyünü və Azərbaycan Respublikasının tam suverenliyini təmin etmək, ölkəni müharibə vəziyyətindən çıxarmaq".

Hakimiyyətdə olduğu ilk ildə Heydər Əliyev çox vacib bir konseptual məqamı - müasir dünya siyasi sistemində deklarativ deyil, real suverenliyə nail olmağı ön plana çəkərək 1993-cü il sentyabrın 21-də dedi: "Müstəqillik təkcə beynəlxalq təşkilatların bizi tanımasından ibarət deyil... müstəqilliyi inkişaf etdirmək, onu əldən buraxmamaq, bütün sahələrdə (rəhbər prinsip kimi) həyata keçirmək lazımdır".

Heydər Əliyevin suverenlik konseptinin qavrayışının özəlliyini də nəzərə almaq lazımdır. Burada qeyd etməliyik ki, suverenlik anlayışı Heydər Əliyevin anlamında ümumi qəbul olunmuş tutumdan daha dərin məna kəsb edir. Onun leksikonunda suverenlik anlayışı tarixilik kimi bir xüsusiyyətə malikdir. Onun çıxışlarının ümumi konteksti belə deməyə əsas verir ki, "suverenlik" ifadəsi dövlətin və onun siyasi elitasının yeni dünya siyasi arenasında öz tarixi missiyasının yerinə yetirilməsi, daha dəqiq desək, Azərbaycanı siyasi mədəniyyət də daxil olmaqla, milli mədəniyyətə tamamilə uyğun şəkildə müasirləşdirməklə bağlı suveren hüquqları mənasını verir. Əslində, Heydər Əliyev millətin siyasi elitasının müasirləşmək konsepsiyasını kənar imperativ təsirlər olmadan müəyyənləşdirmək hüququ uğrunda mübarizə aparırdı.

Ulu öndərin çıxışlarında müasir Azərbaycan dövlətinin siyasətinin fövqəlsinfi səciyyə daşıdığını göstərən mənəvi tələblər öz əksini tapırdı. Sovet Azərbaycanında şəxsi kapitala imkan verilməməsi təcrübəsindən ötən əsrin 90-cı illərində onun yaradılmasına və təşviqinə keçid Azərbaycan Respublikasında dünya oliqarxiyası ilə saysız-hesabsız tellərlə bağlı olan yeni yaranmış oliqarxiyanın hakimlik edəcəyi kimi başa düşülmürdü. Heydər Əliyevin prinsipial olaraq fövqəlsinfi, antioliqarxik daxili siyasəti Azərbaycan dövlətinin davamlı xarici siyasi oriyentasiyalarının əsası oldu.

Göstərilən xüsusiyyət xarici siyasətin çoxvektorluğunda təcəssümünü tapır. Tarix göstərir ki, postsovet ölkələrində oliqarxik daxili siyasət hakimiyyətə inamda dərin böhrana və "narıncı inqilab"a sürüklənməyə səbəb olur. 2003-cü və 2005-ci illərdə "narıncıların" uğursuzluğunun səbəblərini Heydər Əliyev kursu tərəfindən yaradılmış immunitetdə axtarmaq lazımdır.

Oliqarxlıq ehtirası ilə milli maraqlara xəyanət arasında əlaqə artıq şübhə doğurmur. Dövlətin xarici siyasəti daxili siyasətin davamı, onun təzahürüdür. Xarici siyasət, ilk növbədə, milli dövlətin digər dövlətlərlə milli maraqların müdafiəsi uğrunda mübarizəsidir. Bu maraqlar suverenliyin vəhdət təşkil edən üçcəhətli konsepsiyasında - dövlət suverenliyi, milli suverenlik və xalq suverenliyində birləşmişdir. Bu səbəbdən də dövlətdə birlik nə qədər möhkəm olarsa, dövlətin xarici siyasəti bir o qədər uğurlu olur. Bununla yanaşı, ümummilli maraqların formalaşdırılması mental ənənənin, tarixi təcrübənin mütləq nəzərə alınmasını tələb edir ki, bunun da dövlət tərəfindən yerinə yetirilməsi olduqca mürəkkəb, böyük zəhmət tələb edən məsələdir. Bütün bu məqamlar Heydər Əliyev tərəfindən uğurla əlaqələndirilmişdir.

Ümummilli liderin xarici siyasətinin maraqlı cəhətlərindən biri də ideal və real məqamların nisbətidir. Heydər Əliyev milli ideologiyanın mahiyyətini zəngin təcrübəsinə əsaslanaraq yaxşı başa düşürdü. Artıq hakimiyyətdə olduğu ilk illərdə bu mövzunu dövlətin taleyi üçün aktual məsələ kimi qaldırırdı. 1994-cü ilin dekabrında ümummilli lider deyirdi: "Biz öz milli ideologiyamız haqqında düşünməliyik. Milli ideologiya heç şübhəsiz bizim tarixi keçmişimizlə, millətimizin adət və ənənələri ilə, bizim xüsusiyyətlərimizlə, xalqımızın və dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır".

Heydər Əliyev hamıdan yaxşı bilirdi ki, dünyanın aparıcı dövlətləri ilə əməkdaşlıq modelini hazırlayarkən risk hədlərini mütləq nəzərə almaq lazımdır. Belə bir tələb də məhz bu məntiqdən doğur: Azərbaycan dövlətinin xarici siyasəti özündə mənəvi dəyərləri nümayiş etdirən məqamları əks etdirməlidir. Heydər Əliyev deyirdi: "Biz çalışmalıyıq ki, yenidən müstəqilliyini əldə etmiş Azərbaycan bütün dünyaya öz tarixi nailiyyətlərini, milli ənənələrini nümayiş etdirə bilsin. Güman edirəm ki, Azərbaycan xalqı bu mənada həm tarixi, həm də müasir potensiala malikdir". İqtisadiyyatın da aid olduğu bu potensiala Heydər Əliyev "bizim elmimizi, mədəniyyətimizi, ənənələrimizi və islam dinini" daxil edirdi.

Azərbaycan dövlətinin əsasını təşkil edən tarixilik, realizm, mənəvilik, mədəniyyəttutumlu müstəqillik millətin xarici siyasi mentallığı ilə təmin edilir. Bu cəhət Heydər Əliyev tərəfindən intuitiv olaraq nəzərə alınmışdır.

Heydər Əliyevin siyasi kursu Realpolitik ruhu ilə səciyyələnir. O, dünya reallıqlarının qiymətləndirilməsində müxtəlif resurslarla təmin edilən milli dövlətlərin maraqları mövqeyindən çıxış edir. Dünyanı maddi maraqlar idarə edir və bu, müxtəlif ideoloji sistemlərdə özünü göstərir. Realpolitik istiqamətli bu yanaşma sayəsində Heydər Əliyev Azərbaycan dövlətinin neft strategiyasını formalaşdırdı və bu təsəvvür bu gün də xarici siyasətin əsas konseptual cəhətini təşkil edir. Prezident İlham Əliyevin xarici siyasət kursunun çoxvektorluğu da Realpolitik yanaşma prinsiplərinə söykənir.

Müasir dünyanı ciddi problemlər narahat edir. Geniş mənada bunlar bəşəriyyətin yaşamaq uğrunda mübarizəsi, dünya sivilizasiyasının nailiyyətlərinin qorunub saxlanması ilə bağlıdır. Məsələn, dünyanın ən kəskin problemlərindən biri enerji təhlükəsizliyi problemidir. Bizim ölkəmiz mühüm enerji ixracatçısıdır. Azərbaycan dövlətinin bu sahədə real imkanları onun xarici siyasətini lövbər kimi saxlayır, ona özünəməxsus məna və dəyər verir. Ölkəmizin enerji baxımından əhəmiyyəti həyat tərzimizi, təsisatlarımızı qoruya bilən müstəqil xarici siyasət həyata keçirməyə imkan verir və bununla da millətin öz məqsədlərini həyata keçirmək hüququnun aliliyini təmin edir. Bununla bərabər, Azərbaycanın enerji siyasəti yuxarıda adıçəkilən dəyər motivasiyalarını ehtiva edir. Bunu tarixi hadisə - "Əsrin müqavilə"sinin imzalanması faktından görmək olar. Bu, ilk baxışdan sırf iqtisadi xarakterli akt, eyni zamanda, dünyagörüşü baxımından hadisə oldu. 1994-cü il sentyabrın 20-də Heydər Əliyev deyirdi: "1920-ci ildən başlayaraq, Azərbaycanın həyatında mühüm dəyişikliklər baş vermişdir. Azərbaycanın iqtisadiyyatı inkişaf etmiş, respublikada güclü sənaye potensialı yaradılmışdır, bizim neft sənayemiz böyük tarixi yol keçmişdir. Mən bu gün bunu bizim qonaqlarımızın diqqətinə çatdırmağı, Azərbaycan xalqına xatırlatmağı zəruri hesab edirəm. Çünki bütün bunlar Azərbaycan xalqının fəxri və şöhrətidir, bizim xalqımızın, neftçilərimizin dünya iqtisadiyyatında böyük xidmətlərindən xəbər verir".

Heydər Əliyevin hakimiyyət konsepsiyasında "Əsrin müqaviləsi" onun əsas məqsədini - ictimai rifaha xidmət edən dəyər ideyasını əks etdirirdi. "Əsrin müqaviləsi" insan enerjisinin azad olunması kimi başa düşülən müasirləşmənin mühərrikinə çevrilsə də, proseslərə nəzarət dövlətin himayəsində qalırdı.

Azərbaycanın digər mühüm taleyüklü xüsusiyyəti dünya və regional maraqların kəsişməsində yerləşməsidir. Biz bir çox dövlətlər və nüfuzlu transmilli təşkilatların maraqlarının toqquşduğu mürəkkəb geosiyasi məkanda yerləşirik. Çox vacib haldır ki, Azərbaycan dövləti bu gün dünya siyasətinin təhlükəli dəyişikliklərinin qarşısını almağa və konfliktogen situasiyaları müxtəlif siyasi sistemli ölkələrlə əməkdaşlıq məcrasına keçirməyə müvəffəq olmuşdur.

Azərbaycanın həyata keçirdiyi dəyərtutumlu və məqsədyönlü çoxvektorlu xarici siyasət, sözün tam mənasında, MDB-yə üzv dövlətlər üçün model ola bilər. Çünki bu kurs milli maraqların, Azərbaycan dövlətinin

maraqlarının maksimal təminatına yönəlmişdir və müasir beynəlxalq münasibətlərdə mövcud çağırış və təhdidlərə adekvat reaksiya kimi özünü uğurla doğruldur. Azərbaycanın həyata keçirilməkdə olan milli və dövlət maraqları ümumi inkişaf və tərəqqi, xalqın maddi rifahının yüksəldilməsi, eyni zamanda, Azərbaycanın dünyada mövqelərinin möhkəmləndirilməsi deməkdir. Azərbaycan dövlətinin bugünkü nailiyyətlərinin kökü ümummilli lider Heydər Əliyevin 10 illik islahatçı fəaliyyətinin üzvi tərkib hissəsi olduğu ölkəmizin XX əsrdəki tarixi nailiyyətdir.

Diqqətəlayiq haldır ki, ümummilli liderin müəyyən etdiyi inkişaf strategiyasını böyük müvəffəqiyyətlə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən xarici siyasət bu gün müstəqil Azərbaycanın dünya miqyasında mövqelərinin daha da güclənməsinə gətirib çıxarıb. Xalqın iradəsi əsasında Azərbaycan Prezidenti seçildikdən sonra cənab İlham Əliyev bir siyasətçi olaraq dünyada böyük hörmət və nüfuz sahibinə çevrilib. Təkbətək və çoxtərəfli görüşlərdə, eləcə də müxtəlif beynəlxalq tribunalardan etdiyi çıxışlarda Azərbaycanın milli maraqlarını bütün sahələrdə uğurla müdafiə və təmin edən dövlət başçısının həyata keçirdiyi xarici siyasət ölkəmizin regional, beynəlxalq mövqelərini davamlı olaraq daha güclü hala gətirir. Onun qətiyyətli mövqeyi Cənubi Qafqazda hər hansı taleyüklü məsələnin həllində, transmilli layihənin reallaşmasında Azərbaycanın iştirakı və razılığı olmadan konkret nəticə əldə olunmasını mümkünsüz edir. Azərbaycan təkcə mövcud olduğu yox, MDB, Şərqi Avropa kimi böyük bir coğrafi ərazidə də əsas nüfuz sahiblərindən biri kimi çıxış edir. Son illərdə sülh danışıqları prosesində Ermənistanın tamamilə çıxılmaz vəziyyətə salınması, beynəlxalq təşkilatlarda Azərbaycan ərazilərinin işğalını pisləyən sənədlərin qəbul edilməsi Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin məntiqi nəticəsi, Azərbaycanın diplomatik sahədə böyük uğurlarıdır.

Ötən ilin oktyabrın 24-də Azərbaycanın diplomatik uğurları sırasına növbəti əlamətdar hadisə əlavə olundu. BMT Baş Məclisinin plenar iclasında gizli səsvermənin nəticələrinə əsasən respublikamız 2012-2013-cü illərdə Şərqi Avropa regionunu Təhlükəsizlik Şurasında təmsil edəcək yeni üzv seçildi. Azərbaycanın BMT TŞ-nin üzvü seçilməsi həm ölkəmizdə, həm də xarici dövlətlərdə haqlı olaraq respublikamızın beynəlxalq müstəvidə qazandığı son dərəcə böyük siyasi və diplomatik qələbə kimi qəbul edilir. Bu uğur həm də Azərbaycanın öz milli maraqlarının beynəlxalq səviyyədə müdafiəsi üçün daha geniş imkanlar yaradır. Bu baxımdan Azərbaycanın BMT TŞ-nin üzvü seçilməsi ölkəmizdə həyata keçirilən siyasətin məntiqi nəticəsi olmaqla milli və dövlət maraqları baxımından çox mühüm siyasi məsələdir. Prezident İlham Əliyevin bununla əlaqədar verdiyi bəyanatda çox aydın şəkildə ifadə edilib ki, bu, bizim üçün tarixi əhəmiyyət kəsb edən bir hadisədir. BMT TŞ-yə üzv olmaq üçün BMT dövlətlərinin üçdə ikisinin, təxminən 129 dövlətin səsini qazanmaq lazım idi. Lakin təsəvvür edin ki, quruma 193 üzv dövlətdən 155-i Azərbaycanın TŞ-yə üzv olmasına səs vermişdir. 20 illik müstəqillik dövrünü yaşayan gənc dövlətin beynəlxalq miqyasda, dünyanın ən aparıcı beynəlxalq təşkilatında bu qədər səs toplaması doğrudan da mühüm bir məsələdir.

Bu kontekstdə daha bir önəmli amil ondan ibarətdir ki, indi dünyada Azərbaycanı tanıyırlar, onun inkişafı və mədəniyyəti haqqında məlumatları var. Azərbaycanın "Eurovision-2011" beynəlxalq mahnı müsabiqəsindəki tarixi qələbəsini yada salaq. Ölkəmiz 56 illik tarixə malik bu musiqi yarışına cəmi dörd ildir qatılmasına baxmayaraq, ötən dövrdə yüksək pillələrdə qərarlaşıb, daim ilk onluqda yer alıb. 2011-ci ildə isə mötəbər yarışdan qalib kimi ayrılıb. Bir çox Avropa ölkələrinin "Eurovision"da 40-50 illik təcrübələrinə baxmayaraq, uzun illər həsrətində olduqları, lakin hələ də dada bilmədikləri qələbə sevincini Azərbaycan bu mahnı bayramını cəmi dörd illik iştirakı ilə yaşadı. Tamaşaçı səsverməsi Azərbaycanı 43 ölkə arasında qələbə zirvəsinə ucaltdı. Bununla da ölkəmiz dünyada daha bir möhtəşəm mədəniyyət uğuruna imza atdı.

Bu böyük nailiyyət Azərbaycanın dünyada artan nüfuzunun, regional və beynəlxalq aləmdə yeritdiyi siyasətin təntənəsinin əyani göstəricisidir. Şübhəsiz ki, yarışmanın qalibini seçən sadə insanlar bu və ya digər ölkənin təmsilçisini dəstəkləməyi qərara alarkən həmin ölkənin beynəlxalq əlaqələrdə rolunu, mədəniyyətlərin, sivilizasiyaların dialoquna verdiyi töhfəni nəzərə alırlar. Bütün bunların fonunda Azərbaycanın yenidən öz mədəniyyəti ilə dünyanı fəth etməsi tamamilə qanunauyğundur.

Qeyd edilənlər belə bir nəticəyə gəlməyə əsas verir ki, ikinci dəfə dövlət müstəqilliyini əldə etdikdən sonra 1993-cü ildən başlayaraq Azərbaycan kifayət qədər uğurlu xarici siyasət strategiyası həyata keçirib. Ölkəmiz daim dəyişən beynəlxalq mühitə uyğunlaşmaqla yanaşı, eyni zamanda, regional liderə çevrilməyə nail olaraq milli maraqların həyata keçirilməsi, müstəqilliyin və suverenliyin gücləndirilməsi, ərazi bütövlüyünün bərpasına istiqamətlənmiş fəal xarici siyasət yürüdüb.

**“Azərbaycan”.-**2012.-26 aprel.-N 90.-S.5.

# HEYDƏR ƏLİYEVİN İDEYALARI AZƏRBAYCAN SƏHİYYƏSİNİN İNKİŞAFINDA MÜHÜM AMİLDİR

**Əhliman ƏMİRASLANOV,**
Azərbaycan Tibb Universitetinin rektoru, akademik,
Milli Məclisin deputatı

**Ümummilli lider Heydər Əliyev öz xalqına, millətinə misilsiz xidmətləri ilə yaddaşlara əbədi həkk olunmuşdur. Dahi rəhbərin milli maraqlara yönələn siyasəti, sosial, iqtisadi, mədəni intellektual cəhətdən ölkəsini dirçəltmək, qədim xalqını öz torpaqlarının, tarixi irsinin və taleyinin həqiqi sahibinə çevirmək uğrunda mübarizəsi onun bitib-tükənməz ideyalarının inandırıcı potensialını daha da artırmışdır. Məhz xalqda olan bu inam böyük Azərbaycanlının ikinci dəfə hakimiyyətə gəlişinin istinadına çevrilmişdir. Böyük qayıdışdan sonra Azərbaycan cəmiyyətində müstəqil dövlətçilik ideyaları fundamental mahiyyət kəsb etməyə başlamış, mütərəqqi ənənələr əsasında yeni dövlətçilik konsepsiyası işlənib hazırlanmışdır.**

Ulu öndər Heydər Əliyevə yaxşı bəlli idi ki, xarici dövlətlərdən hərtərəfli yardım alan Ermənistanın təcavüzünə qarşı aparılan qeyri-bərabər döyüşlər davam etdikcə respublika daha ağır vəziyyətə düşə bilər, transmilli neft şirkətlərini ölkəmizə dəvət etmək, onlarla müqavilələr bağlamaq və beləliklə, Azərbaycan neftini sərbəst təhlükəsiz marşrutla Qərbə ixrac etmək mümkün olmayacaq. Ona görə də ilk növbədə 1994-cü il mayın 14-də atəşkəsə nail olundu, həmin ilin sentyabr ayının 20-də isə "Əsrin müqaviləsi" imzalandı. Məhz ulu öndərin uzaqgörən siyasəti nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində öz geostrateji mövqeyini möhkəmləndirə bildi. 1994-1995-ci illərin hadisələrində Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini faciələrdən və iflasdan xilas etdi. O, ictimai-siyasi sabitliyi təmin etməklə demokratik dövlət modeli konsepsiyasını həyata keçirməyə başladı. Böyük rəhbərin dövlətçilik uğrunda apardığı fəal mübarizə, çoxşaxəli fəaliyyət ölkəmizin bütün sahələrində olduğu kimi, bu konsepsiyanın tərkib hissələrindən olan Azərbaycan səhiyyəsi, o cümlədən tibb elmi və tibb təhsili strukturlarının dinamik inkişafı və gələcək yüksəlişində də öz parlaq əksini tapdı. Müəyyən müddətdə cəmiyyətdə müşahidə edilən anarxizmi neytrallaşdırmaq da ümummilli liderin dahiyanə siyasətçi olmasının məntiqi yekunu kimi dəyərləndirilir.

XX əsrin ortalarında - 1969-cu ilin 14 iyulunda ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin ən qabarıq siyasi təzahürü imperiyanın sərt ideoloji qəlibləri şəraitində azərbaycançılıq məfkurəsinin, milli ruhun hədsiz yüksəlişinin, xalqın tarixi kökünə qayıdışı kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hislərinin güclənməsi, real siyasi amilə çevrilməsi ilə bağlı olmuşdur. Böyük öndər respublikamızın üzləşdiyi problemləri ilk gündən düzgün müəyyənləşdirməklə, onların həlli üçün lazımi iradə, qətiyyət və prinsipiallıq göstərmiş, o dövrün çatışmazlıqlarını açıq deməkdən çəkinməmişdir. Bu baxımdan Heydər Əliyevin Azərbaycan KP MK-nın 5 avqust 1969-cu il tarixli plenumundakı dərin məzmunlu, eyni zamanda tənqidi ruhlu çıxışı Sovet Azərbaycanını problemlər məngənəsindən dinamik inkişaf yoluna çıxaran pozitiv prosesin başlanğıcı kimi ehtiramla xatırlanır. Plenumda çıxış edən Heydər Əliyev mövcud problemləri konkret şəkildə önə çəkmiş, dövlət idarəçiliyi sistemində formalaşmış regionçuluq, bürokratiya və korrupsiya kimi neqativ tendensiyaların yolverilməz olduğunu demişdir. Ulu öndər eyni zamanda çoxsaylı problemlərin həllində bir sıra rəhbər şəxslərin məsuliyyət daşıdığını da aşkar şəkildə bəyan etmişdir.

Çox keçmədi ki, dünya siyasətçiləri sırasında öncül mövqeyə çıxan dahi Heydər Əliyev fenomeni ona bəslənən ümidləri doğruldaraq əsl xariqələr yaratmağa başladı. Xalqın öz liderinə, onun möhtəşəm ideyalarına olan inamının geniş vüsət alması ulu öndər tərəfindən reallaşdırılan əməli tədbirlərə, onun gərgin fəaliyyətinin əyani nəticələrinə əsaslanırdı.

Ümummilli lider hələ keçmiş SSRİ dövründə Azərbaycanda xalq təsərrüfatının bütün sahələrinin inkişafına xüsusi diqqət yetirir, yeniliyə, tərəqqiyə sədd yaradan, keçmişdən miras qalan manеələri, lüzumsuz stereotipləri qətiyyətlə aradan qaldırırdı. Onun düşünən beyni sanki istirahət bilmədən daim fəaliyyət göstərərək Azərbaycanın gələcəyi naminə yeni layihələrin eskizlərini hazırlayır və dərhal da onların həyata keçirilməsi üçün şərait yaradırdı. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan qısa müddətdə mütərəqqi islahatların tətbiqi meydanına çevrildi.

O vaxtlar Azərbaycanın SSRİ-nin tərkibində olmasına baxmayaraq, ulu öndər çəkinmədən, heç nədən və heç kimdən ehtiyat etmədən müstəqil addımlar ataraq, özünəməxsus bacarıqla respublikada demokratik ruhlu dəyişikliklərə daha çox yer verirdi. O, bunları xüsusi diplomatik məharətlə həyata keçirərək Moskvanın ona nəyi isə irad tuta biləcəyinə də heç bir əlyeri qoymurdu. Əksinə, Moskva da onun ideyalarının məhsulu olan yenilikləri, islahatları, Azərbaycanın inkişaf ritmini alqışlamaq məcburiyyətində qalırdı. O dövrdə Moskva qəzetlərində çap olunmuş "Qoy ədalət zəfər çalsın" məqaləsi nəinki keçmiş Sovetlər İttifaqı miqyasında, eləcə də bütün dünyada böyük rezonans doğurmuşdu. Paytaxtın tibb təhsili müəssisələrində mühazirə oxuyan

professor Metelitsa kimi filosof-pedaqoqlar, alim-professorlar öz çıxışlarında Heydər Əliyevdən sitatlar gətirir, onun təcrübəsinin geniş yayılmasını tövsiyə edirdilər.

Ulu öndər Heydər Əliyev kosmopolit ideyaların zehinlərinə zorla yerləşdirildiyi bir dövrdə milli məfkurənin qorunub saxlanılması, habelə azərbaycançılığın ən mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi sahəsində də mühüm tədbirlər həyata keçirmişdir. Heydər Əliyev üçün ana dili azərbaycançılığın başlanğıc məqamı, təməl prinsipi olmuşdur. Müdrik rəhbər yaxşı başa düşürdü ki, xalqa milli-mənəvi dəyərlərini aşılamaq üçün ona ilk növbədə öz dilini sevdirmək lazımdır. Rus dilinin dövlət dili olmasına rəğmən, ulu öndər həmin dövrdə rəsmi nitqlərini Azərbaycan dilində edir, bunu bütün rəhbər vəzifəlilərdən də qətiyyətlə istəyirdi.

Ümummilli lider Heydər Əliyev keçmiş ittifaqın iqtisadiyyatı üçün əlverişli xammal bazasına çevrilmiş Azərbaycanın yeni inkişaf strategiyasını böyük uzaqgörənliklə işləyib həyata keçirmişdir. Bunun nəticəsi kimi bir sıra əsas göstəricilər üzrə geridə qalmış Azərbaycan qısa müddətdə inkişafının yeni mərhələsinə qədəm qoyaraq ittifaqın qabaqcıl respublikalarından birinə çevrilmiş, milli gəlir səviyyəsini əhəmiyyətli dərəcədə artıra bilmişdir. Bugünkü müstəqil Azərbaycan dövlətinin iqtisadi-siyasi əsaslarının, milli kadr potensialının formalaşması, ölkədə strateji əhəmiyyətli sənaye və istehsal müəssisələrinin açılması da məhz ötən əsrin 70-80-ci illərinə təsadüf edir. Heydər Əliyevin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyəli müəssisələri məhz Azərbaycanda inşa olunmuş, bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsasları formalaşdırılmışdır.

Ulu öndər bütün sahələrdə olduğu kimi, Azərbaycan səhiyyəsini, tibb elmi və tibb təhsili sistemini də daim diqqət mərkəzində saxlayırdı. O, ilk növbədə tibb üzrə xarici mütəxəssislərin diqqətini respublikaya cəlb etməyə, onların yerli mütəxəssislərlə əməkdaşlıq əlaqələrini genişləndirməyə çalışırdı. Bununla da dahi rəhbər respublika səhiyyəsində mövcud olan durğunluğun aradan qaldırılmasına səy göstərirdi və buna müvəffəqiyyətlə nail olurdu. Keçən əsrin 60-cı illərinin sonu, 70-ci illərinin əvvəllərindən etibarən tibb üzrə beynəlxalq qurultay, simpozium, konqres və konfransların Bakıda keçirilməsini təşkil edən Heydər Əliyev ölkə səhiyyəsinin, o cümlədən tibb elmi və tibb təhsili sahələrinin beynəlxalq miqyasda tanınmasına, dayanıqlı və sabit inkişafının təmininə əlverişli şərait yaradırdı.

XX əsrin 70-ci illərinin əvvəllərindən etibarən ulu öndərin təşəbbüsü ilə hər il yüzlərlə gənc keçmiş Sovetlər İttifaqının ən mötəbər ali məktəblərində müxtəlif peşə və ixtisaslar üzrə təhsil almağa göndərilirdi. Bu, gələcəyin kadr hazırlığının təmin olunmasına istiqamətlənmiş uzaqgörən siyasətin həyata keçirilməsi demək idi. Böyük rəhbər gənclərin təhsilinə, işlə təmin edilməsinə, hərtərəfli inkişafına, onların dünyagörüşünün genişlənməsinə, beynəlxalq əlaqələrin artmasına, yeniliklərdən bəhrələnmələrinə, fiziki və əqli cəhətdən sağlam böyümələrinə xüsusi diqqət yetirirdi. O, "Gənclər bizim gələcəyimizdir" dedikdə, Azərbaycanın gələcəyinin ağıllı, savadlı, bacarıqlı gənclərin əlində olmasını arzulayırdı. Böyük rəhbər bilirdi ki, gənclər cəmiyyətin indikatoru, lakmus göstəricisidir. Belə ki, hər bir ölkədə cəmiyyətin səviyyəsini müəyyənləşdirən əsas qüvvə gənclərdir. Ümummilli lider Heydər Əliyev həmişə deyirdi ki, "dövlətimizin gələcəyi bizim gənclərimizə nəyi və necə öyrətməyimizdən asılıdır". Hər bir ölkənin istər intellektual, istər mədəni, elmi, siyasi, istərsə də idarəçilik, dövlətçilik səviyyəsi onun gənclərinin intellektual potensialı ilə ölçülür. Bütün bunları incəliklərinə qədər bilən, hətta onların görünməyən tərəflərini belə görə bilən ulu öndər gənclərin təhsilinə, tərbiyəsinə, ictimai- siyasi baxışlarının itiliyinə diqqət yetirərək, bu istiqamətdə inkişaflarına geniş şərait yaradırdı. Bununla o, XXI əsrin yüksək səviyyəli insanlarını yetişdirir, milli-mənəvi dəyərlərimizin, vətənpərvərlik, azərbaycançılıq duyğularımızın saflığına, ucalığına çalışırdı. Bu yanaşma tərzi ilə Heydər Əliyev Azərbaycanda yüksək səviyyəli cəmiyyət qura bilən, onu müasir tələblərin bütün atributları ilə beynəlxalq miqyasda təmsil etməyə qadir olan, vətəni, milləti göz bəbəyi kimi qorumağa, ictimai-milli mənafeyi öz şəxsi mənafeyindən üstün tutmağa hazır olan gənclər ordusunun təməlini qoydu. İndi son dərəcə möhkəm və əzəmətli görünən bu təməl öz gücünü gələcəkdə daha da artıracaq, Azərbaycana ləyaqətlə xidmət edəcəkdir.

Heydər Əliyev dühasının uzaqgörən siyasətinin süzgəcindən süzülən ideyalarının ən möhtəşəm uğurlarından biri də ondan ibarət oldu ki, ulu öndər Azərbaycana İlham Əliyev kimi gənc Prezident bəxş etdi. Ulu öndərin xalqımız tərəfindən bəyənilən və dəstəklənən iqtisadi-siyasi kursunu hazırda ölkə Prezidenti cənab İlham Əliyev böyük uğurla davam etdirir.

Heydər Əliyevin xarici ölkələrdə oxutdurduğu gənclər indi - XXI əsrdə Azərbaycanda aparıcı mütəxəssislərə çevriliblər. Onun qoyduğu təməllərin bəhrəsi Azərbaycan Tibb Universitetinin timsalında özünü daha qabarıq şəkildə büruzə verir. Bu ali təhsil ocağı yarandığı gündən sonrakı mərhələlərin müəyyən dövründə milli kadr qıtlığından daim əziyyət çəkib. Lakin indi tam əminliklə demək olar ki, ulu öndər Heydər Əliyevin və onun əvəzsiz davamçısı Prezident İlham Əliyevin göstərdikləri diqqət və qayğı sayəsində Azərbaycanda tibb elmi və tibb təhsili, eləcə də səhiyyənin bütün sahələri üzrə çox sanballı, yüksək səviyyəli milli kadrlar yetişib və onlar da öz peşəkarlıq məktəblərini yarada biliblər. Tibb sahəsində beynəlxalq səviyyəli mütəxəssis məktəbləri yaratmaq o qədər də asan məsələ deyildir. Belə məktəblər bir ilin, beş ilin ərzində yarana bilməz. Əgər Azərbaycanda səhiyyə, tibb elmi, tibb təhsili sahələrində bu cür fundamental məktəblər yaranıbsa, demək,

Heydər Əliyev ideyalarının çiçəklənməsi barədə həm indi, həm də gələcəkdə böyük qürur və fəxrlə danışmağa haqqımız var.

Bu gün Azərbaycanın milli tibb kadrları nəinki ölkəmizdə, hətta dünyanın bir sıra inkişaf etmiş xarici ölkələrinin məşhur tibb müəssisələrində müvəffəqiyyətlə fəaliyyət göstərirlər. Həkim və alimlərimizin xaricə göndərilməsi həm də müxtəlif ölkələrdə yaşayan və fəaliyyət göstərən dünya azərbaycanlılarının maddi və mənəvi dayağının artmasına, Azərbaycan diasporunun möhkəmlənməsinə zəmin yaradır.

Ölkə səhiyyəsi, tibb elmi və tibb təhsili sistemi XX əsrin ikinci yarısı və XXI əsrin əvvəllərində 35 ilə yaxın bir dövrdə bilavasitə Heydər Əliyevin himayəsində olub, onun rəhbərliyi altında inkişaf edib, onun sayəsində indiki yüksək səviyyəyə çatıb. Böyük rəhbər keçən əsrin 70-80-ci illərində Azərbaycanın tibb təhsili sistemində ölçüyəgəlməz islahatlar aparmış və o zamankı Azərbaycan Dövlət Tibb İnstitutu keçmiş Sovetlər İttifaqında yenidən tanınmağa, öz sözünü deməyə başlamışdır. XX əsrin 70-ci illərində tibbi fənlərin diplomdanəvvəlki və diplomdansonrakı tədrisinin, tələbələrin və məzunların peşə hazırlığının, eləcə də abituriyentlərin instituta qəbulunun keyfiyyətinin yaxşılaşdırılması məqsədi ilə ADTİ-də internatura kursu, hazırlıq şöbəsi, istehsalat təcrübəsi dekanlığı və digər köməkçi şöbələr yaradılmışdır. Ulu öndər hər sahədə olduğu kimi, Azərbaycanın səhiyyə sisteminin, o cümlədən Tibb İnstitutunun da maddi-texniki bazasının möhkəmləndirilməsini diqqət mərkəzində saxlamışdı. Bir-birinin ardınca yeni tədris binaları, xəstəxana və poliklinikalar tikilib istifadəyə verilmişdi. Ötən əsrin 70-ci illərinin sonu və 80-ci illərinin əvvəllərində Azərbaycanın tibb alimlərinin beynəlxalq əlaqələri xeyli genişlənməyə başlamışdı. 1980-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun yaranmasının 50 illik yubileyi ulu öndərin iştirakı ilə keçirilmişdir və o, bu münasibətlə institutun əməkdaşlarının bir qrupunu fəxri adlara layiq görmüşdür. Akademik Mustafa bəy Topçubaşovun keçmiş SSRİ-nin ən yüksək təltiflərindən olan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülməsi ulu öndərin səyi nəticəsində mümkün olmuşdur. Belə alimlərin SSRİ miqyasında, sonra isə beynəlxalq aləmdə tanıdılması Azərbaycan səhiyyəsinin, tibb elminin tanıdılması demək idi.

Ümummilli lider Heydər Əliyevin 1982-ci ildə Moskvada SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edilməsi onun Azərbaycan səhiyyəsinə, tibb elminə və tibb təhsili sisteminə olan qayğı və diqqətini daha da artırdı. Böyük rəhbər Moskvada çalışdığı illərdə SSRİ-nin səhiyyə sahəsinə də nəzarət edirdi və Sovetlər İttifaqının yüksək rütbəli tibb alimləri, səhiyyə işçiləri ilə tez-tez görüşlər keçirir, qarşıya çıxan problemlərin müzakirəsini aparır, həmin problemlərdən irəli gələn məsələlərin çıxış yollarını peşəkarcasına göstərirdi. Ulu öndər eyni zamanda SSRİ-nin nüfuzlu tibb alimlərinin diqqətini Azərbaycana cəlb etməklə respublika səhiyyəsinin tərəqqisinə zəmin yaradırdı.

O vaxtlar SSRİ-nin səhiyyə sisteminin və dünya tibb elminin görkəmli nümayəndələrindən olan akademik N.N.Bloxin həm də mənim çalışdığım SSRİ Tibb Elmləri Akademiyasının Ümumittifaq Onkoloji Elmi Mərkəzinin direktoru idi və o, hər dəfə Heydər Əliyevin SSRİ miqyasında səhiyyə idarələri başçılarının iştirakı ilə keçirilən toplantılardakı çıxışlarından sonra rəhbərlik etdiyi mərkəzin işçilərinin müşavirəsini keçirərək, onun tapşırıqlarını əməkdaşlara çatdırardı. Akademik N.N.Bloxin, adətən, ünsiyyətdə olduğu adamlar haqqında xoş sözlər deməkdə bir qədər "xəsislik" edərdi. Lakin o, Heydər Əliyev haqqında danışanda ürəkdən gələn ən səmimi sözləri söyləməkdən çəkinməzdi. Ulu öndərin çıxışları akademikdə, sözün həqiqi mənasında, böyük təəssürat oyadırdı. Akademik N.N.Bloxin deyirdi ki, Heydər Əliyev səhiyyənin problemlərini ən titullu səhiyyə mütəxəssislərindən də gözəl bilir.

Heydər Əliyevin 1993-cü ilin iyun ayı

nın 15-də yenidən Azərbaycana rəhbərliyə qayıdışından sonra ölkə səhiyyəsinin, həmçinin tibb elmi və tibb təhsili sisteminin inkişafının yeni mərhələsi başlandı. XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində ermənilərin Azərbaycan torpaqlarının 20 faizini işğal etməsindən sonra bütün sahələrdə olduğu kimi, səhiyyə sistemində, tibb elmi və tibb təhsili sahələrində də tənəzzül, xaos baş alıb gedirdi. İllərlə ulu öndər tərəfindən çətinliklə yaradılan gözəl şərait, yüksək səviyyəli tibbi təchizat, avadanlıqlar baxımsızlıq üzündən dağıdılırdı. Xoşbəxtlikdən bu, uzun sürmədi və ulu öndərin yenidən hakimiyyətə gəlişi pərakəndəliyin, dağıntıların qarşısını aldı. Həmin dövr üçün Azərbaycan cəmiyyətindəki pozucu qüvvələrin zərərsizləşdirilməsindən sonra ulu öndər siyasi, hüquqi, iqtisadi, sosial sahədə demokratik islahatlar proqramının həyata keçirilməsinə start verdi. Ulu öndərin Azərbaycan dövlətçiliyi qarşısında başlıca xidmətləri sırasında ölkənin Əsas Qanunu olan konstitusiyanın qəbulu istiqamətində gördüyü işlər, atdığı real addımlar xüsusi qeyd olunmalıdır. 1995-ci ildə qəbul edilmiş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun hüquqi əsaslarını yaratdı. Ölkəmiz demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişafı kimi seçdi. Ulu öndərin birbaşa təşəbbüsü ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu sənəd müstəqil Azərbaycanın ilk Konstitusiyası kimi tarixə yazıldı.

1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar verdi. Heydər Əliyev böyük şəxsiyyət olaraq cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və mənafelərinin etibarlı təminatında görür və buna xidmət edən bütün zəruri tədbirləri həyata keçirirdi. Onun gərgin səyləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi məqsədi ilə ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı. Ulu öndər 1997-ci ildə xarici jurnalistlərlə görüşündə müxbirin dövlətçilik ənənələrinin yaranması və hansı göstəricilərlə şərtlənməsi ilə bağlı sualını cavablandıraraq demişdi: "...Bu, ilk növbədə, əhalinin xalqa, xalqın millətə, sakinlərin vətəndaşlara çevrilməsi istiqamətində gedən prosesdir. Dövlətçilik insanlarda vətənpərvərlik duyğusunu, vətən anlamının milli mənə daxil edilməsini nəzərdə tutur. Əgər hər hansı bir ölkədə hər kəs təkcə öz mənafeyini, ailəsinin mənafeyini düşünürsə, xalqın taleyinə, ümummilli siyasi və iqtisadi mənafelərə biganədirsə, deməli, burada dövlətçilik ənənələri yoxdur. Gərək hər bir vətəndaş ölkəsinin böyük siyasəti haqqında düşünsün".

Ümummilli liderin dövlətçilik siyasəti sayəsində Azərbaycanın özü ilə birlikdə onun səhiyyə sistemi də xilas edildi. Heydər Əliyevin o vaxtlar ölkəmizdəki siyasi-iqtisadi vəziyyəti yaxşılaşdırmaq naminə gördüyü işlər, yerinə yetirdiyi əvəzsiz xidmətlər tarixin səhifələrinə qızıl hərflərlə həkk olundu. Bundan sonra müstəqil Azərbaycan Respublikasında həm siyasi, həm də iqtisadi durum yüksələn xətt üzrə inkişaf etməyə başladı. Bu, dərhal özünü ölkə səhiyyəsinin, tibb elmi və tibb təhsili sistemi sahələrinin tərəqqisində də büruzə verdi. Tezliklə Azərbaycan Tibb Universitetinin beynəlxalq əlaqələri genişləndi və ölkəmizin bu ali tibb ocağı 1996-cı ildə regionda ilk ali məktəb kimi Londonda çapdan çıxan dünya təhsil birliyinin beynəlxalq reyestrinə daxil edildi. Onu da qeyd etmək lazımdır ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan Tibb Universitetinin tədris bazalarının çatışmaması tibb təhsilinin gedişinə mənfi təsir göstərirdi. Bundan xəbər tutan ulu öndər bünövrəsi hələ SSRİ dövründə, onun tərəfindən qoyulmuş tədris binasının tikintisinin sona çatdırılması üçün vəsait ayırdı və onu öz nəzarətində saxladı. 1998-ci ilin sentyabr ayının 28-də ATU-nun yeni tədris binasının açılışında şəxsən iştirak edən ulu öndər Azərbaycanın tibb işçilərinə, tibb alimlərinə, universitetin tələbələrinə sanki qol-qanad verdi. Əksər nəzəri kafedralar, ATU-nun kitabxanası, informatika mərkəzi, hərbi kafedra, internet mərkəzi yeni tədris binasında yerləşdirildi. Bu, müəllimlərə, həkimlərə, tələbələrə verilən ən böyük hədiyyə idi. Ulu öndər 2000-ci ildə yenidən Azərbaycan Tibb Universitetinə gəldi və burada 500 yerlik unikal akt zalının açılışında, eləcə də ATU-nun yaradılmasının 70 illik yubileyinə həsr edilmiş təntənəli mərasimdə iştirak etdi. Yenicə istifadəyə verilmiş akt zalının tribunasından birinci olaraq ulu öndər Heydər Əliyevin tarixi nitqi səsləndi. Ümummilli liderin nitqi bizim üçün proqram sənədinə çevrildi və gələcək planlarımızı dahi Heydər Əliyev ideyalarının müddəaları əsasında qurduq. Azərbaycan Tibb Universitetinin professor-müəllim heyətinin nümayəndələri elmi və pedaqoji fəaliyyətlərində əldə etdikləri nailiyyətlərə görə bir sıra beynəlxalq qurumlara üzv seçildilər.

Ulu öndərin göstərişi ilə 2000-ci ildə ATU-nun nəzdində strateji əhəmiyyət kəsb edən hərbi tibb fakültəsi yaradıldı. Dahi rəhbərin ATU-ya göstərdiyi dövlət qayğısı sayəsində Azərbaycan Tibb Universiteti Qara Dəniz Hövzəsi Ətrafı Ölkələrin Ali Məktəblər Birliyinin, Beynəlxalq Ali Məktəblər Assosiasiyasının, Avropa Universitetlər Assosiasiyasının tamhüquqlu üzvü seçildi. Ümummilli lider Heydər Əliyevin qayğısı sayəsində 2002-ci ildə Azərbaycan Tibb Universiteti nəzdində ilk dəfə olaraq Stomatoloji Klinika təşkil edildi və bununla da ATU-nun öz klinikalarının yaradılmasının möhkəm bünövrəsi qoyuldu.

Dahi Heydər Əliyevin qurduğu bünövrəyə söykənərək ATU öz müzəffər yürüşünü hazırda da müvəffəqiyyətlə davam etdirir. Çünki Azərbaycana rəhbərlik edən cənab İlham Əliyev ulu öndərin yolunun uğurlu davamına yeni çalarlar gətirərək onu gündən-günə genişləndirir, bütün zamanların dayağına, istinad nöqtəsinə çevirir. Təkcə onu demək kifayətdir ki, 2006-cı ildə Azərbaycan Prezidentinin qayğısı sayəsində ATU-nun Onkoloji Klinikasının təşkilinə başlanıldı və bu proses 2007-ci ilin iyun ayında başa çatdırıldı. 2007-ci ilin avqust ayında isə biz cənab İlham Əliyevə müraciət edərək terapevtik kafedraların qarşısında yaranan problemin həlli üçün kömək istədik. Ulu öndər Heydər Əliyevin ideyalarına sadiq qalan cənab Prezident bizim xahişimizi bir an belə ləngitmədən ona adekvat cavab verdi, qısa bir müddətdə - həmin ilin sentyabr ayının 11-də ATU-nun terapevtik klinikasının yaradılması və tikintisinə başlanılması haqqında sərəncam imzaladı. 2007-ci ilin sentyabr ayının 18-də tikintinin təməlqoyma mərasimində cənab İlham Əliyevlə birlikdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva da iştirak edirdi. 2010-cu il oktyabrın 1-də isə cənab Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın iştirakı ilə Tədris-Terapevtik Klinikanın açılış mərasimi keçirildi. Hazırda ulu öndər Heydər Əliyevin tikdirdiyi 11 mərtəbəli tədris binası ilə cənab İlham Əliyevin təşəbbüsü və qayğısı sayəsində inşa edilən 14 mərtəbəli Tədris-Terapevtik Klinika yanaşı dayanır. 2008-ci il mart ayının 13-də cənab Prezident daha bir sərəncam imzalamışdır. Bu sərəncamla cərrahiyyə klinikasının tikintisinə başlanılmışdır. Artıq klinikanın tikintisi başa çatdırılıb və yaxın vaxtlarda istifadəyə veriləcəkdir.

Fərəhli haldır ki, dahi Heydər Əliyev ideyalarından güc alan müasir Azərbaycan diplomatiyası cənab İlham Əliyevin apardığı daxili və xarici siyasətin nəticələri sayəsində misli görünməmiş uğur qazanmışdır. Belə ki, Azərbaycan Respublikası 2011-ci il oktyabrın 24-də 155 ölkənin dəstəyini qazanaraq Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Bu möhtəşəm tarixi nailiyyət ümummilli lider Heydər Əliyevin ideyaları altında birləşən vahid dünya azərbaycanlıları ailəsinin bir üzvü kimi Azərbaycanın səhiyyə işçilərini, o cümlədən ölkəmizin bütün tibb alimlərini və tibb təhsili əməkdaşlarını ürəkdən sevindirir.

Azərbaycan səhiyyəsinin, tibb elmi və tibb təhsili sisteminin bütün ağırlığını öz çiyinləri üzərinə götürərək onu inkişaf etdirən və gələcək perspektivlərini müəyyənləşdirən dahi Heydər Əliyev dəst-xətti, qüdrəti öz möhtəşəmliyi ilə daim seçilir və bənzərsizliyi ilə fərqlənir. Ona görə də müasir Azərbaycan Respublikasının memarı olan Heydər Əliyevin ideyaları ölkənin tibb elmi və tibb təhsili sisteminin, Azərbaycan səhiyyəsinin də sarsılmaz dayağı, ilhamverici qüvvəsidir. Ulu öndərin dünyəvi ideyalarına söykənən siyasət əbədidir, həmişəyaşardır. Ümummilli liderin Azərbaycan səhiyyəsinin, eləcə də tibb elmi və tibb təhsili sisteminin dayanıqlı və sabit inkişafının təminatına işıq salan ideyaları daim yaşayacaqdır.

**Əhliman ƏMİRASLANOV,**
Azərbaycan Tibb Universitetinin rektoru, akademik,
Milli Məclisin deputatı

“**Azərbaycan**”.-2012.-29 aprel.-N 92.-S.2.

# ZƏNGİN VƏ QÜDRƏTLİ AZƏRBAYCAN HEYDƏR ƏLİYEV İDEYALARININ TƏMƏL PRİNSİPİDİR

**Bahar MURADOVA,**
Milli Məclis Sədrinin müavini,
YAP İdarə Heyətinin üzvü

**Zəngin keçmişimizə və dövlətçilik ənənələrimizə nəzər yetirdikdə Azərbaycan xalqının XX əsr tarixinin ən parlaq səhifələrinin məhz ümummilli lider Heydər Əliyev fenomeni ilə bağlı olduğunu, bu zaman kəsiyində ölkəmizin keçdiyi böyük inkişaf yolunun ulu öndərin misilsiz xidmətlərinin nəticələri kimi çıxış etdiyini bir daha aydın müşahidə etmək olar. Eləcə də Azərbaycanın XXI əsrə müstəqil dövlət qismində artıq böyük uğurlara imza atmış ölkə olaraq qədəm qoyması da Heydər Əliyev dühası ilə bağlıdır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyasının yeni dövrün tələblərinə uyğun olaraq Prezident İlham Əliyev tərəfindən daha da zənginləşdirilərək uğurla davam etdirilməsi isə qloballaşma prosesinin geniş vüsət aldığı XXI əsrdə Azərbaycanın tərəqqi yolunda sürətlə irəliləməsini təmin etməkdə, onu zəngin və qüdrətli bir dövlətə çevirməkdədir.**

Dünyada demək olar ki, bütün sahələr üzrə baş verən sürətli qloballaşma prosesləri son zamanlar yeni vəziyyətlərin və münasibətlərin, siyasi və ictimai baxışların formalaşmasına, inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə ciddi və həlledici təsir göstərməkdədir.

Hazırda beynəlxalq münasibətlərin yeni, daha mükəmməl müstəviyə keçməsində qərarlı olan beynəlxalq təşkilatlar təkamül prosesinin labüdlüyünü dərk etdiklərindən mövcud durumun gələcək perspektivlərini araşdırmaq kimi vacib və ciddi problemlə qarşılaşmışlar. Bununla əlaqədar hazırlanan analitik hesabatlar, layihə və proqramlar məhz növbəti inkişaf mərhələsində planetin yaşam tərzinin müəyyənləşdirilməsinə xidmət edir.

BMT-nin 12 illik araşdırma və təhlillərinin nəticəsi olan "Minilliyin layihəsi" çərçivəsində qəbul edilmiş "Gələcəyin Bəyanatı"nda yaxın gələcək üçün yer almış mühüm fəaliyyət istiqamətlərinin dəqiqləşdirilməsi nəzərdə tutulan hədəflərə çatmaq üçün atılmış vacib addımdır.

Gənc, lakin artıq sarsılmaz müstəqillik və dinamik inkişaf dayaqları üzərində təşəkkül tapmış Azərbaycan Respublikası da dünya düzəninin ayrılmaz bir hissəsi olaraq bu proseslərdən kənarda deyil. Buna əminlik yaradan fakt olaraq özünün ən yeni tarixində - müstəqilliyinin 20-ci ildönümündə qlobal siyasətin böyük meydanı olan BMT-nin Təhlükəsizlik Şurasına 155 dövlətin dəstəyi ilə qeyri-daimi üzv seçilən Azərbaycan Respublikasının müasir beynəlxalq siyasətin avanqardında yer alması bir daha sübut edir ki, ölkəmiz beynəlxalq münasibətlər sisteminin sıravi bir subyekti deyil, bu sistemin dinamikasını dərk edən və bu məsuliyyəti dünyanın qabaqcıl ölkələri ilə bölüşməyə hazır olan dövlətlərdən biridir. Şərqi Avropa qrupundan BMT TŞ-nın 2012-2013-cü illər üzrə qeyri-daimi üzvlüyünə seçkilərdə respublikamızın namizədliyinin böyük səs çoxluğu ilə dəstəklənməsi həm də onu göstərdi ki, Azərbaycan qarşısıalınmaz bir prosesin başlanğıcında formalaşmaqda olan yeni qlobal siyasətin ön cinahında özünə layiqli yer tutmaq iqtidarındadır. XX əsrin ən praqmatik və realist siyasətçilərindən olan ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın xoşbəxt gələcəyinə bəslədiyi sarsılmaz inamı artıq öz əksini ölkəmizin bugünkü reallıqlarında tapır.

Məhz öz dövlətinin və xalqının potensialından bəhrələnən belə bir optimist siyasi mövqeyin 2003-cü ildən bəri getdikcə daha da möhkəmləndirilməsinin nəticəsidir ki, ölkə rəhbərliyi dövlət müstəqilliyimizin iyirminci ilində daha sonrakı 10 il ərzində həmin imkanların gələcək inkişafını təmin edən fundamental istiqamətlərin müəyyənləşdirilməsinə dair qərar vermişdir. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası barədə imzalanmış sərəncam Azərbaycan Respublikasının gələcək inkişafında böyük siyasi əhəmiyyət daşıyan sənəd kimi tarixdə və yaddaşlarda qalacaqdır. Böyük əminliklə söyləmək mümkündür ki, bu sərəncam ölkə rəhbərinin Azərbaycana və dünyaya özünün yeni quruculuq siyasətinə dair iradəsini ortaya qoymuşdur.

Bundan sonra gedəcəyimiz yolun təməli isə müstəqillik dövründə əldə etdiyimiz uğurlar üzərində qurulur. Prezident İlham Əliyev dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş rəsmi qəbulda söylədiyi nitqində bu yolun perspektivinə işıq salaraq bəyan etmişdir: "Biz 20 il ərzində böyük yol keçmişik - müstəqillik yolu, suverenlik yolu, azadlıq yolu... Bu 20 il ərzində o qədər böyük işlər görülmüşdür ki, biz bu 20 ili böyük bir müddət kimi də qəbul edə bilərik və edirik. Ancaq biz hamımız bilirik ki, müstəqil Azərbaycan üçün bu, birinci addımdır. Müstəqil Azərbaycan bundan sonra əbədi yaşayacaqdır".

Bu inam xalqda belə bir əminlik yaradır ki, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə təkcə özümüzün deyil, bütün tərəqqipərvər dünyanın, hətta uğurlarımıza qısqanclıqla yanaşan rəqiblərimizin də etiraf etdiyi nailiyyətlərimiz bizə gələcəyin qapılarını daha cəsarətlə açmağa imkan verəcəkdir.

Yürüdülən dövlət siyasətinin nə qədər düzgün və öncədən bütün detalları düşünülmüş olduğunu təsdiq edən əsas fakt respublikamızın ildən-ilə yüksələn inkişafıdır. Əgər biz müstəqilliyimizin 20 illik bazasının inkişaf dinamikasını qısaca nəzərdən keçirsək, aydın görərik ki, bu inkişaf fazasında Azərbaycan özünə layiq bir gələcək qurmaqdan ötrü bütün potensialını formalaşdırmış, yeni fazaya keçid üçün hazır vəziyyətə gətirilmişdir.

Bu gün Azərbaycanda siyasi sistemin dayanıqlığı təmin edilmiş, dövlətçilik ənənələri etibarlı şəkildə qorunub saxlanmaqdadır. Ölkə vətəndaşlarının siyasi hakimiyyətə etimadı yüksələn xətlə böyüyür, ictimai şüurda qərarlaşmış təkamül məntiqi insanları mövcud sosial-siyasi quruluşun daha da təkmilləşdirilməsinə, mahiyyətcə yeniləşdirilməsinə sövq edir. Azərbaycan cəmiyyəti öz milli-mənəvi dəyərlərini qoruyub saxlamaqla bərabər, eyni zamanda müasirliyə, modern cəmiyyətin təşəkkül tapmasına rəğbətlə yanaşır.

Azərbaycan Respublikasının daxili və xarici siyasəti bir-birini tamamlayaraq suveren dövlətimizi beynəlxalq münasibətlər sisteminin əhəmiyyətli bir seqmentinə, milli iqtisadiyyatımızı isə dünya iqtisadiyyatının ayrılmaz və mütəhərrik parçasına çevirə bilmişdir. Azərbaycandan start götürən qlobal layihələr dünyada gedən siyasi-iqtisadi prosesləri sürətləndirmiş, beynəlxalq təhlükəsizlik siyasətinin inkişafında öz yeri və rolu olan ölkəmizə dünya dövlətləri arasında yüksək etimad yaratmışdır. Şərq və Qərbin sintezinin səmərəliliyi baxımından məhz Azərbaycanda sivilizasiyalararası dialoqun ahəngliliyinə nail olunmuş, ölkəmiz universal humanist dəyərlərə, demokratiya və fundamental insan hüquqları prinsiplərinə sadiqliyini nümayiş etdirmişdir.

Milli dövlətçiliyimizin siyasətində prioritet istiqamətlər üzrə həyata keçirilmiş islahatlar nəticəsində ictimai-siyasi həyatın, iqtisadiyyat, elm, təhsil və mədəniyyətin bütün sahələrində davamlı və sürətli irəliləyiş inkişafın ana xəttini təşkil etmişdir. Kökü ulu öndər Heydər Əliyev dönəmindəki 1994-cü il islahatlarına bağlı olan ardıcıl pozitiv dəyişikliklərin nəticəsi olaraq Azərbaycan 2005-ci ildən iqtisadiyyatın inkişaf sürətinə görə dünyanın lider dövlətinə çevrildi və bu günə qədər də həmin göstəriciyə görə öncüllük mövqeyini qoruyub saxlamaqdadır.

Ümumiyyətlə, bu son mərhələdə ölkənin sosial, iqtisadi, mədəni həyatına əhəmiyyətli dərəcədə təsir göstərən bütün sahələrdə inkişaf tempi daha yaxşı keyfiyyət göstəriciləri ilə davam etmişdir. Heç də təsadüfi deyildir ki, ən nüfuzlu beynəlxalq hesabatlarda Azərbaycanın inkişaf dinamikası birmənalı olaraq real faktlar əsasında təsdiq edilir.

İnamla demək olar ki, Azərbaycanın dünya ölkələri sırasında sayılıb-seçilən, qüdrətli və zəngin bir dövlətə çevrilməsi ideyası dəyişib-yeniləşən zamanın tələbindən və gələcəyin inkişaf modelini aydın görə bilən strateji düşüncənin və bu inkişafı həyata keçirməyə qadir olan siyasi iradənin vəhdətindən bəhrələnir. Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi Azərbaycan dövləti və cəmiyyəti bunun üçün həm maddi-iqtisadi potensialına, həm də yaradıcı mənəvi ruhuna, əzminə görə hazırdır. Milli inkişafın məhz bu istiqamətdə təşəkkül tapması üçün real ictimai-siyasi şərait, sosial-psixoloji əsaslar vardır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə ərsəyə gəlmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının reallığına əminlik yaradan əzm və iradə də məhz hər bir vətəndaşın arzu və istəyinin ifadəsi olaraq xalqımızı növbəti uğurların əldə olunmasına səfərbər etməyə yönəlmişdir.

Artıq qlobal siyasət sahəsində ötən illər ərzində özünü sülhə, mədəniyyətlərarası dialoqa, tolerantlığa sadiq ölkə kimi tanıtmış Azərbaycan dünya siyasi səhnəsində "yeni nəsil dünya dövləti"nin müasir modelini yaratmağa nail olmuş və bu sırada özünəməxsus layiqli yerini tuta bilmişdir. Gələcəyə doğru inkişafın təməli, start nöqtəsi olan bu nailiyyətlər ölkəmizin xarici və daxili siyasətində yeni meyillərin əsasını qoymağa, 2020-ci ilə qədərki dövrdə dünya birliyinə daha zəngin, daha modern və daha güclü Azərbaycanın təqdim olunmasını təmin edəcək layihələri həyata keçirməyə imkan verəcəkdir.

Qarşıdakı dövrdə Azərbaycanın beynəlxalq siyasi arenada öz nüfuzunu gücləndirməklə yanaşı, beynəlxalq səviyyəli təşəbbüs irəli sürməkdən çəkinməyərək universal dəyərlərə söykənən yeni dünya düzəninin formalaşmasında fəal iştirak edəcəyi artıq təəccüb və şübhə doğuran məsələlərdən deyil. Yaxın gələcəkdə Azərbaycan Respublikası bugünkü nailiyyətlər zirvəsindən müasir beynəlxalq sistemdə yeni nəsil dünya dövlətlərinin lideri qismində və bu dövlətlərin Azərbaycanın maraqları ətrafında birgə fəaliyyətinə nail olmuş bir dövlət kimi görünür.

Dünya dövlətləri ilə ikitərəfli və çoxşaxəli münasibətlərin dərinləşdirilməsi və intensivləşdirilməsi üçün artıq ciddi zəmin yaranmışdır. Regiondakı digər dövlətlərlə dinc qonşuluq və dostluq siyasəti nəticə etibarilə Xəzəryanı bölgə və Cənubi Qafqazın planetin təhlükəsizlik zolağına çevrilməsi ideyasına güclü töhfədir. Bu, Azərbaycanın bölgədəki lider rolunun bir qədər də möhkəmlənməsinə öz həlledici təsirini göstərməklə yanaşı, onun beynəlxalq aləmdə sülhsevər imicinin formalaşması və nüfuzunun daha da yüksəlməsi üçün bir meyardır.

Bu ilin fevralında Mexikoda dünyanın ən inkişaf etmiş 20 dövlətinin qatıldığı ənənəvi "G-20" sammitinə ilk dəfə olaraq Azərbaycanın dəvət olunması onu göstərdi ki, ölkəmiz artıq regional liderlikdən yüksələrək beynəlxalq miqyasda qlobal oyunçuya çevrilməkdədir.

İqtisadiyyat sahəsində son 10 ildə Azərbaycan dünyadakı ağır maliyyə böhranı şəraitində ən yüksək iqtisadi tərəqqi əldə etməyə nail olmuş ölkə kimi dünya miqyasında kifayət qədər müsbət imic qazanmış və siyasi leksikona "inkişafın Azərbaycan modeli" anlayışını gətirə bilmişdir. İnkişafın mövcud dinamizmi, şübhəsiz son nəticədə Prezident İlham Əliyevin irəli sürdüyü strateji məqsədlərə uyğun olaraq, milli iqtisadiyyatımızın - səmərəli və innovasiyayönümlü, çoxşaxəli iqtisadiyyat kimi formalaşdırılmasını təmin edəcəkdir.

Bu gün Azərbaycanda enerji təhlükəsizliyi problemi nəinki həll olunub, ölkəmiz "Ümid" və "Abşeron" kimi yeni təbii qaz mənbələrinin kəşf olunması ilə Avropanın ən etibarlı enerji təminatçısına çevrilmiş və bu mövqe getdikcə daha da möhkəmlənməkdədir.

Yaxın gələcəkdə Azərbaycanın inkişaf etmiş sənaye dövlətinə çevrilməsi, dünya bazarlarında rəqabətədavamlı məhsulların istehsalı üçün yeni, müasir texnologiyaların tətbiqi istiqamətində artıq əsaslı baza yaranmaqdadır. Dövlət başçısının sərəncamına əsasən yaradılmış Sumqayıt Texnologiyalar Parkı, Balaxanı Sənaye Parkı və bir çox digər müəssisələr məhz bu məqsədlərin reallaşmasını təmin edəcəkdir.

Azərbaycanda kosmik sənayenin formalaşdırılması və inkişaf etdirilməsi, bu istiqamətdə ən modern informasiya texnologiyalarının tətbiqi ilə bağlı çox mühüm layihələrin həyata keçirilməsi ilə ölkəmizin yaxın illərdə aparıcı dünya dövlətləri sırasında layiqli yer tutmasına öz töhfəsini verəcəkdir. Nazirlər Kabinetinin 2011-ci ilin yekunlarına həsr olunmuş yığıncağında ölkə Prezidenti İlham Əliyev bu il Azərbaycan telekommunikasiya peykinin orbitə buraxılmasını tarixi hadisə adlandıraraq, bu istiqamətdə daha möhtəşəm nailiyyətlərin əldə olunacağına inamını ifadə etmişdir.

Hal-hazırda bəşəriyyəti təhdid etməkdə olan ərzaq təhlükəsizliyi probleminin aradan qaldırılması və ölkənin xarici qida məhsullarından asılılığının minimuma endirilməsi üçün ölkə rəhbərliyinin ciddi siyasi iradəsi mövcuddur. Müxtəlif ərzaq məhsullarının istehsalı ilə məşğul olan çoxsaylı müəssisələrin açılması da məhz bu məqsədə xidmət edir. Ona görə də Yer kürəsində mövcud olan 11 iqlim qurşağından 9-nun Azərbaycanda olmasından və digər təbii və texniki imkanlardan səmərəli istifadə etməklə ölkəmizdə yaxın dövr üçün ərzaq təhlükəsizliyinin təmin olunmasının mümkünlüyü real görünür.

Ötən illərin təcrübəsi göstərdi ki, Azərbaycan ən çətin sınaqlarda belə qarşısına çıxan problemləri öz gücünə həll etməyə qadirdir. Dünya iqtisadi və maliyyə böhranı şəraitində nəzərdə tutulan bütün proqramların, infrastruktur layihələrinin qətiyyətlə həyata keçirilməsi ölkəmizin real gücünün, yürüdülən siyasətin düzgünlüyünün əyani təsdiqidir. Beynəlxalq aləmdə, eləcə də yerləşdiyimiz regionda bir çox ölkələrin böyük çətinliklərlə üzləşdiyini, bəzilərinin isə tam tənəzzülə uğradığını nəzərə alsaq, Azərbaycanın əldə etdiyi makroiqtisadi göstəricilər olduqca böyük nailiyyətdir. Bir çox Qərb dövlətləri hazırda xalqın sosial yüksəlişini uğurla təmin etməkdən ötrü məhz Azərbaycan modelinə üstünlük verir. Uğurlu sosial siyasətin prioritet istiqamətləri də bütün bu faktorları təsdiqləməkdədir.

Azərbaycanda turizmin inkişafı üçün formalaşdırılmış potensial gələcəkdə ölkəmizin bu sahədəki reytinqini ən yüksək zirvəyə çıxara biləcəkdir. Nəfis memarlıq üslublarının yer aldığı, həm Şərq, həm də Avropa mədəniyyətinin sintezini özündə əks etdirən, milli-mənəvi və tarixi dəyərlərdən bəhrələnmiş arxitektura, yüksək səviyyədə qurulmaqda davam edən infrastruktur, məşhur "Hillton" və "Cumeyra", "Kempinski" tipli otellərin, Qusar Qış-Yay Turizm Kompleksinin, respublikanın müxtəlif bölgələrində yüksək səviyyəli xidmətin təşkil olunduğu istirahət və biznes mərkəzlərinin tikintisi, Zaqatala, Lənkəran, Naxçıvan və Gəncədə müasir tipli beynəlxalq hava limanlarının salınması, üstəlik ölkənin əsrarəngiz təbiəti ölkəmizin cəlbedici turizm məkanına çevrilməsi üçün güclü zəmin yaratmışdır. 2011-ci ilin "Turizm ili" elan olunması da məhz gələcəkdə bu sahədə həyata keçirilməsi nəzərdə tutulan qlobal layihələrin reallaşması və müvafiq bazanın yaradılması üçün bir stimuldur. Bu sahədə görüləcək işlərin miqyası isə daha böyükdür.

Bu gün bir çox nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi edən Azərbaycanda 2012-ci ilin "Eurovision" beynəlxalq mahnı müsabiqəsinin ən yüksək səviyyədə keçiriləcəyi şübhə doğurmur. 2020-ci il Yay Olimpiya və Paralimpiya Oyunlarının ölkəmizdə keçirilməsinə dair təklifin qəbul olunması və müsbət nəticəyə bəslənən ümidlər ildən-ilə güclənir. Bu, eyni zamanda Azərbaycanın real imkanlarının beynəlxalq təşkilatlar tərəfindən etirafıdır. Vaxtilə həsəd apardığımız İtaliya kimi dövlətin bu yarışda rəqabətə davam gətirməyərək meydandan geri çəkilməsi fonunda bizim böyük idman sahəsində qazandığımız uğurlar daha əhəmiyyətli məna yükünə malik olur, daha geniş götürsək, bu beynəlxalq səviyyədə ölkəmizin potensialına inamın ifadəsini ortaya qoyur.

Azərbaycan gəncinin gələcəkdə müasir, yüksək elmi və intellektual potensiala malik vətəndaş kimi yetişməsi üçün bu istiqamətdə aparılan məqsədyönlü fəaliyyət getdikcə daha böyük vüsət alır. Müasir dövrdə ən inkişaf etmiş dövlətlərin təcrübəsi təsdiqləyir ki, yalnız təhsil sistemi yüksək səviyyədə olan ölkələr hərtərəfli tərəqqiyə

nail olurlar. Çünki hər bir dövlətin bu günü və gələcəyi onun intellektual potensialından asılıdır. Bu sahənin inkişafına yatırılan investisiyalar gələcəyimizin təminatıdır. Azərbaycan da məhz bu yolu seçmişdir.

Təhsili millətin gələcəyi adlandıran ümummilli lider Heydər Əliyev ona fəaliyyətinin bütün dövrlərində böyük önəm verib, təhsilə qayğının artırılmasına dövlət siyasətinin üstün prinsipi, prioritet məsələsi kimi yanaşıb. Bu siyasi mövqeyə sadiqlik nümayiş etdirən Prezident İlham Əliyev ölkəmizin gələcək inkişaf yolunun məhz gənclərdən asılı olduğunu önə çəkərək deyib: "Biz gələcəyə çox böyük ümidlərlə baxırıq. Çünki bilirik ki, Azərbaycanın gələcəyi bugünkündən də gözəl olacaqdır. Bu gün Azərbaycan özünü dünya miqyasında sürətlə və uğurla inkişaf edən ölkə kimi tanıtdıra bilmişdir. Ancaq gələcəkdə elmə, təhsilə, yeni texnologiyaların tətbiqinə göstəriləcək diqqət və həyata keçiriləcək proqramlar Azərbaycanı inkişaf etmiş ölkələr sırasına daxil edəcəkdir. İnkişaf etmiş ölkə olmaq üçün isə gərək cəmiyyətin intellektual potensialı yüksək səviyyədə olsun".

Uzunmüddətli təhsil proqramlarının qəbul olunması Azərbaycanda elmin və təhsilin inkişafına güclü təkan verir, Azərbaycan vətəndaşının yüksək intellekt və bilik sahibinə çevrilməsinə şərait yaradır. Bu məqsədlə ölkə rəhbərliyinin siyasi iradəsi əsasında təsdiq olunmuş uzunmüddətli layihələrə uyğun olaraq böyük məbləğdə vəsaitlərin ayrılması azərbaycanlı gənclərin dünyanın aparıcı elm və təhsil ocaqlarında oxumaları üçün görülən konkret tədbirləri və Heydər Əliyev Fondunun həyata keçirdiyi böyükmiqyaslı layihələr öz bəhrəsini verməkdədir.

BMT-nin inkişaf proqramının hesabatına daxil olunan insan potensialının inkişaf indeksi bütün dünyada gözlənilən ömür həddinin, savadlılığın, təhsilin və həyat səviyyəsinin müqayisəli kompleks göstəricisidir. Azərbaycan bu siyahıda artıq yüksək indeksə malik ölkələrdən biri kimi qeydə alınıb. Lakin hədəf ən yüksək nailiyyətlər əldə etmiş birincilər sırasına daxil olmaqdır. Ölkəmiz bu yolda uğurla irəliləməkdədir. Səhiyyə sahəsində görülən işlər, ən müasir avadanlıqlarla təchiz olunmuş yeni xəstəxanaların, diaqnostika mərkəzlərinin açılması, insan sağlamlığının meyarı olan idmana göstərilən dövlət qayğısı son nəticədə əhalinin ömür həddinin daha yüksək səviyyəyə qalxmasına bilavasitə təsir edəcək. Elm və təhsil səviyyəsində aparılan köklü islahatlar isə hər bir Azərbaycan vətəndaşının yüksək savad və intellektual qabiliyyətinin formalaşmasını hədəfə alıb.

İnanıram ki, bütün bunların nəticəsi olaraq yaxın gələcəkdə biz bir neçə dildə sərbəst danışan, geniş dünyagörüşlü, yüksək elmi, mədəni səviyyəsi və zövqü ilə seçilən insanların yaşadığı Azərbaycan cəmiyyətini görə biləcəyik.

Bir sözlə, ölkəmizin perspektiv inkişaf istiqamətlərinin müəyyən edilməsi məqsədilə bir sıra mühüm addımlar artıq atılıb. Bununla əlaqədar müəyyənləşdirilmiş əsas istiqamətlərdən biri də siyasi sahədə demokratiya institutlarının daha da inkişaf etdirilməsi və vətəndaş cəmiyyəti təsisatlarının rolunun gücləndirilməsi, həmçinin qanunun aliliyini təmin edən mexanizmlərin təkmilləşdirilməsidir. Önəmlidir ki, bu sahədə ilk fundamental sənəd olan Milli Dövlət Proqramını hələ 1998-ci ildə ümummilli lider Heydər Əliyev imzalayıb. 2006-cı ildə Prezident İlham Əliyevin sərəncamı ilə qəbul edilən "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" isə bu prosesin keyfiyyətcə yeni mərhələyə keçməsinə xidmət edib. Dövlət başçısının ötən il imzaladığı "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" dövlətin gələcək illərdə fəaliyyətinin əsas istiqamətlərini müəyyən edir və ictimaiyyətə, həmçinin beynəlxalq birliyə insan hüquq və azadlıqları sahəsində Azərbaycan prioritetlərinin tam şəklini təqdim edir.

Siyasi partiyaların dövlət tərəfindən maliyyələşdirilməsi üçün qanunvericiliyə dəyişiklik edilməsi, kütləvi informasiya vasitələrinə, mətbuata, qeyri-hökumət təşkilatlarına və vətəndaş cəmiyyəti institutlarına maddi dəstəyin verilməsi son nəticədə insanlar arasında alternativ siyasi baxışların formalaşması, cəmiyyətin demokratikləşdirilməsi, bu sahədə davamlı inkişafın təmin olunması üçün müsbət şəraitin yaradılması məqsədini güdür.

Bu gün bizim yeganə problemimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Bugünkü reallığımız - iqtisadi tərəqqi, güclü ordu və beynəlxalq dəstək problemin tezliklə ölkəmizin maraqlarını əks etdirən ədalətli həllini tapacağına böyük inam yaradır. Rəsmi Bakı hər zaman bildirir ki, münaqişənin həllində vasitəçilik missiyasını ATƏT-in Minsk qrupu yerinə yetirsə də, bütün beynəlxalq təşkilatların potensialından səmərəli istifadə etmək niyyətindədir. Bu gün bir çox nüfuzlu beynəlxalq təşkilatların - BMT, Avropa Şurası, ATƏT, İKT, Avropa Parlamentinin qəbul etdikləri qətnamələrdə Ermənistanın işğalçılıq siyasəti pislənir, tarixi saxtalaşdırmamağa çağırışlar səslənir.

BMT TŞ-ya üzv olmaq üçün Ermənistanın sonda öz namizədliyini geri götürməsi isə onun heç bir sahədə, o cümlədən siyasi arenada Azərbaycanla rəqabət apara bilməyəcəyi qənaətini ortaya qoyur və son nəticədə Azərbaycanın real gücü ilə hesablaşmağa məcbur olacağına dəlalət edir.

Şübhə yoxdur ki, yaxın gələcəkdə bu problemin aradan qaldırılması üçün biz Azərbaycan Respublikasının xarici siyasətində ilk növbədə suveren dövlətimizin beynəlxalq münasibətlər sistemində rolunun və mövqeyinin

daha da artmasının şahidi olacağıq. Ölkəmizin pozulmuş hüququnun bərpa edilərək Ermənistan tərəfindən işğal olunmuş Qarabağ və ətraf regionların geri qaytarılması üçün dünya birliyi üzvlərinin və beynəlxalq ictimaiyyətin konstruktiv mövqe birliyinə nail olunacağı gün heç də uzaqda deyil. Bununla da Cənubi Qafqazda Ermənistanın və hər hansı digər dövlətin işğalçılıq siyasətinə yol verməmək üçün Azərbaycan Respublikasının bu regionda siyasi, iqtisadi və hərbi üstünlüyü daha etibarlı şəkildə təmin olunacaqdır.

Beləliklə, Azərbaycan hakimiyyətinin xalq naminə, yüksək ideallar uğrunda apardığı məqsədyönlü siyasət ölkəmizi keçid dövründən sonrakı növbəti və daha uğurlu bir mərhələyə aparır. Bu siyasət ulu öndər Heydər Əliyevin təbirincə desək, "dünyaya günəş kimi doğacaq" Azərbaycanın zəngin və qüdrətli obrazını əks etdirən portretinə bundan sonra da yeni-yeni cizgilər vurulacaq və xalqımızın azad, xoşbəxt, firavan gələcəyini təmin edəcəkdir.

**Heydər Əliyev ideyalarının təcəssümü olan, bütün bu uğurların altında öz imzasını əbədi həkk etmiş və bu gün cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə ən güclü aparıcı qüvvə olaraq beynəlxalq miqyasda yüksək siyasi nüfuz sahibi kimi tanınmış Yeni Azərbaycan Partiyasının bayrağı da nailiyyət zirvələrində ucalan möhtəşəm üçrəngli Azərbaycan bayrağı ilə yanaşı həmişə qürurla dalğalanacaqdır.**

**“Respublika”.-**2012.-1 may.-N 94.-S.2.

# VƏTƏNİNİ TƏRƏQQİ VƏ XOŞBƏXTLİK YOLUNA ÇIXARMIŞ LİDER

**Ağacan ABİYEV,**
Bədən Tərbiyəsi və İdman
Akademiyasının rektoru,
Milli Olimpiya Komitəsinin baş katibi

**Müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti çoxəsrlik dövlətçilik tariximizdə mühüm yer tutur. Bütün həyatını Azərbaycan xalqının və dövlətçiliyimizin taleyi ilə bağlayan, mahir siyasi xadim Heydər Əliyev bənzərsiz və müqayisəedilməz şəxsiyyət idi. Ulu öndər xalqımızın taleyində, mənəvi, siyasi və ictimai həyatında misilsiz rol oynayıb. Dahi rəhbərin hakimiyyətdə olduğu otuz ildən artıq bir dövr ərzində qazandığımız bütün nailiyyətlərin fövqündə məhz Heydər Əliyev fenomeni, qüdrəti və dühası, onun uzaqgörənliklə yürütdüyü müdrik siyasi kurs dayanmışdır.**

XX əsrin 70-ci illərindən etibarən Azərbaycanın siyasi həyatı və bütünlükdə cəmiyyətimiz Heydər Əliyevin titanik səyləri sayəsində yeni impuls, inkişaf parametrləri kəsb edərək özünün yeni yüksəliş mərhələsinə qədəm qoymuşdur. O zamandan başlayaraq böyük tarixi mərhələdə Heydər Əliyev ideyaları həyatımızın başlıca gerçəkliyi, inkişafımızın təməl daşı olaraq qalmaqdadır. 2003-cü və 2008-ci illərdəki prezident seçkilərinin nəticələri, Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin inamlı qələbəsi, seçkidən sonra həyata keçirilən siyasətin xalq tərəfindən qətiyyətlə dəstəklənməsi onu göstərir ki, tariximizin Heydər Əliyev mərhələsi davam edir və uzunmüddətli resurslara malikdir.

Tam qətiyyətlə demək olar ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr tariximizin mühüm, intensiv inkişaf mərhələsini təşkil edir. Bu mənada həmin dövrü tariximizin nəinki sürətli və hərtərəfli yüksəliş illəri, həm də ən yeni tarix adlandırmaq olar. Məhz bu zaman kəsiyində Azərbaycan böyük intellektual və mənəvi potensialı, təbii resursları - bir sözlə, milli gücü cəmləyib ölkənin tərəqqisinin qüdrətli amilinə çevirmək imkanı qazanmış və bununla da öz tarixinin keyfiyyətcə yeni bir dövrünə qədəm qoymuşdur. Bu, tam haqlı olaraq qədim və zəngin tariximizdə müasir Azərbaycan cəmiyyətinin yaradılış mərhələsi kimi öz dəyərini alıb.

Ulu öndərimizin Vətəni və xalqı qarşısında xidmətləri saysız- hesabsızdır. Lakin əminliklə demək olar ki, bəşəriyyətin nadir şəxsiyyətlərindən olan Heydər Əliyevin ən böyük xidməti XX yüzilin sonunda xalqımızı və Vətənimizi düşdüyü fəlakətdən qurtarmasıdır. 1991-ci il oktyabrın 18-də "Azərbaycanın dövlət müstəqilliyi haqqında" Konstitusiya aktı qəbul edilərkən keçirdiyimiz qürur və iftixar hissləri hələ də yaddan çıxmayıb. Onu da unutmamışıq ki, ilk vaxtlar müstəqilliyimiz yalnız kağız üzərində mövcud idi. Ölkənin o vaxtkı iqtidarlarının istər daxili, istərsə də xarici siyasət sahəsində uğursuz idarəçilik metodları və tam bacarıqsızlığı daxili qarşıdurmanı son həddə çatdırmış və separatçı meyillərin güclənməsi üçün zəmin yaratmışdı. Bu uğursuz siyasət nəticəsində dövlət qurumları və ictimai təsisatlar tamamilə tənəzzülə uğramışdı. Demokratik dövlət qurulması, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi kimi taleyüklü vəzifələrin həyata keçirilməsi istiqamətində nəinki konkret addımlar atılmır, əksinə, o vaxtkı iqtidarların düşünülməmiş, milli mənafelərə zidd siyasəti Azərbaycanı fəlakətə, uçuruma sürükləyirdi.

1993-cü ilin hərcmərciik, xaos, anarxiya dolu o taleyüklü günlərində Heydər Əliyev xalqın təkidli xahişi ilə onun harayına gəldi. Həmin il iyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi və bununla da ölkədə hakimiyyət sükanı etibarlı ələ keçdi. Ulu öndər qısa vaxt içərisində ölkədə sabitliyi və əmin-amanlığı bərpa etdi. Həmin gün haqlı olaraq Azərbaycanın müasir tarixinə Milli Qurtuluş günü kimi əbədi daxil oldu. Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi ilə ölkəmizdə yeni dövrün - demokratiya və inkişaf mərhələsinin başlanğıcı qoyuldu. Bu gün müstəqilliyimizin dayanıqlı, dövlətçiliyimizin daimi olacağına hər birimizin böyük əminliyi vardır və bu inam üçün ilk növbədə ulu öndərə borcluyuq.

Azərbaycan məhz Heydər Əliyevin sayəsində qısa bir vaxtda bir çox ölkələrin onilliklərlə keçdiyi yolu geridəqoydu. Bu gün Azərbaycan dinamik inkişaf edən, dünya birliyində layiqli yer tutan, müstəqil siyasət yürüdən bir dövlətdir. İndi planetimizin çox yerindən nəzərlər dünyada ən böyük enerji layihələrinin gerçəkləşdiyi Azərbaycana yönəlib. Təkcə biz yox, bütün dünya bilir ki, "Əsrin müqaviləsi"nin və digər neft kontraktlarının, iqtisadi və strateji baxımdan misilsiz əhəmiyyətə malik neft kəmərinin reallaşması Heydər Əliyevin xidmətidir. 1994-cü ildə çoxlarına qeyri-mümkün görünən layihələri yalnız ulu öndərimizin şəxsi nüfuzu, qətiyyəti, uzaqgörənliyi sayəsində reallaşdırmaq mümkün olub.

Ümummilli liderimizin gərgin əməyi sayəsində 1995-ci ilədək davam edən iqtisadi tənəzzülə son qoyuldu. Makroiqtisadi göstəricilər ilbəil yüksəldi. Dinamik inkişaf dövrü başlandı. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, milli sərvətlərimizdən ölkənin və xalqın mənafeyinə uyğun istifadə olunmasında

ümummilli liderimiz Heydər Əliyevin uğurlu neft strategiyası olduqca böyük əhəmiyyət kəsb edir. "Əsrin müqaviləsi" çərçivəsində Bakı-Tbilisi-Ceyhan neft, Bakı- Tbilisi-Ərzurum qaz ixrac boru kəmərlərinin reallaşması Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində müstəsna rol oynadı.

Ulu öndərimiz Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında başlıca xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılmasıdır. 1995-ci ildə qəbul olunmuş ilk milli Konstitusiya Azərbaycan Respublikasının hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının qorunmasını öz siyasətinin prioriteti kimi qəbul etdi. Demokratiya, dövlət suverenliyi, insan və vətəndaş hüquqları kimi hamılıqla qəbul edilmiş dəyərlər Əsas Qanunun təməl prinsiplərini təşkil edir. Konstitusiyanın qəbulu cəmiyyət və dövlət həyatında demokratik dəyişikliklərə böyük yol açmış, insan hüquq və azadlıqlarının həyata keçirilməsi üçün əlverişli şərait yaratmaqla, həyatımızın bütün sahələrinin inkişafına təkan vermişdir. Bu tarixi hadisə xalqımızın ənənələrinə, milli və mədəni dəyərlərinə uyğun olan və eyni zamanda, ölkəmizdə müasir dünyəvi və vətəndaş cəmiyyəti quruculuğu tələblərinə cavab verən dövlətçiliyin formalaşması, siyasi və hüquq sistemlərində sabit özülün yaradılması işində mühüm addım olmuşdur.

Heydər Əliyev Azərbaycanın güclü dövlətçilik xəttini, onun siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, xalqın milli intibah və inkişafının təməl sütunu olan ideyanın - azərbaycançılıq məfkurəsinin banisi oldu. Çünki o, vətənpərvər lider olmaqla bərabər, eyni zamanda böyük azərbaycanlı idi. Heydər Əliyev Azərbaycanın türk dünyasında özünəlayiq yerini tutmasında, türk dövlət və toplumları arasında inteqrasiyanın güclənməsində böyük xidmətlər göstərmişdir. Heydər Əliyevin azərbaycançılığı milli ideya olaraq irəli sürməsi onun Azərbaycan dövlətçiliyi və dünya azərbaycanlılarının həmrəyliyi naminə göstərdiyi tarixi xidmətdir.

Məhz bu ideologiya Azərbaycan dövlətinə qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin qarşısında güclü ideoloji sipər oldu. Bu məfkurə Heydər Əliyevin böyük vətəndaş hünərinin göstəricisidir və dünya azərbaycanlılarının tarixi Vətən - Azərbaycan ətrafında birləşməsinə müstəsna töhfədir. "Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam", - böyük öndərin dünya azərbaycanlılarının qurultayında söylədiyi bu tarixi sözlər bu gün dillər əzbəridir.

Heydər Əliyevin Azərbaycanın idman siyasətinin həyata keçirilməsi sahəsindəki xidmətləri də əvəzsizdir. Ulu öndər idmançıların cəmiyyət həyatındakı rolunun artması, özlərinə layiqli yer tutmaları üçün əlindən gələni əsirgəməmişdir. Dövlətin idman siyasətinin həyata keçirilməsi üçün 1994-cü ildə Heydər Əliyevin fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Bu mənada 1994-cü ili respublikanın idman həyatında dönüş ili adlandırmaq olar. 1995-ci il martın 5-də Heydər Əliyev yeni bir fərman imzaladı. Həmin fərmana əsasən, Azərbaycan Respublikası əhalisi arasında sağlam həyat tərzinin təbliğ edilməsi və bədən tərbiyəsinin maddi-texniki bazasının inkişaf etdirilməsi, bu sahədə ümumxalq yardımının təşkil olunması məqsədilə gənclərin idmana marağını artırmaq və Azərbaycan idmanının beynəlxalq miqyasa çıxmasına real zəmin yaratmaq üçün fond yaradıldı.

Ulu öndər Azərbaycanda idmanın kütləviliyinə nail olmaq, bədən tərbiyəsi və idmanı geniş coğrafi məkanda inkişaf və təbliğ etdirmək, yüksək nailiyyətlər qazanmaq və dünya şöhrətli idmançılar hazırlamaq üçün bu sahə ilə birbaşa məşğul olan qurumlar qarşısında konkret vəzifələr qoymuşdu. İdmanın inkişafı üçün həyata keçirilməli əsas tədbirlər sırasına mövcud idman bazalarının, stadionların, meydança və zalların qorunması, bərpası və təyinatı üzrə istifadəsinin təmin edilməsi, yeni arenaların tikilməsi, zəruri avadanlıqlarla təchizatı, idman klublarının açılması, mütəxəssislərin yetişdirilməsi, ölkə birinciliklərinin və digər yarışların keçirilməsi, idmançılarımızın beynəlxalq yarışlarda iştirakının təmin edilməsi, yüksək nəticələri olan idmançılara diqqət və qayğı göstərilməsi, ölkəmizdə beynəlxalq yarışların keçirilməsi, uşaq və yeniyetmələrin daha geniş miqyasda idmana cəlb olunması daxil edilmişdi.

Çox qısa zamanda həyata keçirilən mühüm tədbirlərin nəticəsi olaraq idmançılarımız tədricən möhtəşəm qələbələrə imza atdılar, üçrəngli bayrağımız beynəlxalq arenalarda dalğalanmağa başladı. Heydər Əliyev idmanın, bədən tərbiyəsinin inkişafını hər bir sivil xalqın ali ideallarının təcəssümü olmaqla yanaşı, həm də dövlətin beynəlxalq nüfuz və mövqelərinin təntənəsi kimi qiymətləndirirdi. Ulu öndər idmanın dövlətimizin dünyada tanınmasında, imicinin möhkəmlənməsində müstəsna rolunu önə çəkərək deyirdi: "İdman, bədən tərbiyəsi xalqın sağlamlığı ilə bağlı olan mühüm sosial sahədir. Azərbaycan bayrağı dünyada, demək olar ki, iki dəfə qaldırılır. Bu, bir Azərbaycanın dövlət başçısı hər hansı ölkəyə gələrkən və bir də idmançılarımız beynəlxalq yarışlarda çempion adını qazanarkən baş verir. Azərbaycan himni səslənir, dövlət bayrağı qaldırılır".

Azərbaycan gənclərinin lideri İlham Əliyevin MOK prezidenti seçilməsindən sonra ölkəmiz beynəlxalq olimpiya hərəkatına daha fəal qoşularaq öz idman potensialını nümayiş etdirdi. Buna 2000-ci il Sidney Olimpiya Oyunlarını misal göstərmək olar. İki qızıl və bir bürünc medalla ölkəmiz 199 ölkə arasında 34-cü yeri

tutdu. Azərbaycan Milli Olimpiya Komitəsi həm də respublikada beynəlxalq yarışların əsas təşkilatçılarından biri oldu. MOK prezidentinin müraciəti ilə 1999-cu ildə boks üzrə yeniyetmələr arasında Avropa çempionatı ilk dəfə Azərbaycanda keçirildi. Bu çempionatın yüksək səviyyədə təşkil olunması və keçirilməsi Beynəlxalq Həvəskar Boks Assosiasiyasının diqqətini cəlb etdi. Yeniyetmələr arasında boks üzrə ilk dünya çempionatının 2001-ci ildə Bakıda keçirilməsi barədə qərar qəbul olundu. İdman sahəsində uğurlarımız ildən-ilə artmaqdadır. Növbəti Olimpiya oyunlarında idmançılarımız daha möhtəşəm qələbələrə imza atdılar, müstəqil Azərbaycanın şərəfini layiqincə qorudular. Bu gün Azərbaycan idman ölkəsi kimi dünyanın ən mötəbər yarışlarına ev sahibliyi edir. Ölkəmizin paytaxtında və bölgələrimizdə yeni, ən müasir Olimpiya kompleksləri, mərkəzləri inşa olunur. Bütün bunlar deməyə əsas verir ki, ölkəmiz daha yüksək nəticələr qazanmaq əzmindədir.

Hər bir dövlətin gələcəyi, hərtərəfli tərəqqisi onun malik olduğu elmi-intellektual və mənəvi potensialdan, hər bir gəncin taleyi onun biliyindən və savadından asılıdır. Dövlətimizin başçısı İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasətdə təhsilin inkişafı mühüm yer tutur. Milli təhsilimiz hazırda daha sürətli yüksəliş mərhələsini yaşayır. Nəticədə, təhsilin keyfiyyətinin yüksəlməsi, onun dünyanın ən mütərəqqi təhsil sistemlərinə inteqrasiyası istiqamətində köklü irəliləyişlər baş verir.

Son illər təhsil sahəsində 20-dək dövlət proqramı təsdiq olunub və uğurla həyata keçirilməkdədir. Azərbaycan İdman Akademiyası da ölkədə yüksək ixtisaslı idman mütəxəssislərinin hazırlanması işinə böyük töhfə verir ki, bu ölkəmizin bugünü və gələcəyi baxımından olduqca vacibdir.

Prezident İlham Əliyevin sərəncamı ilə 2012-ci il Azərbaycanda "İdman ili" elan olunmuşdur. Bu, qarşımızda çox böyük məsuliyyət qoyur. Əminəm ki, Azərbaycan bu il və gələcəkdə idman sahəsində daha yüksək nəticələr əldə edəcəkdir. Azərbaycanın üçrəngli bayrağı dünyanın ən mötəbər yarışlarında əzəmətlə dalğalanacaqdır.

**“Xalq qəzeti”.-**2012.-2 may.-N 95.-S.3.

# MÜKƏMMƏL KONSTİTUSİYANIN BANİSİ

**Ziyafət ƏSGƏROV,**
Milli Məclis Sədrinin birinci müavini,
YAP Siyasi Şurasının üzvü

**Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında hazırlanan və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunan müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxardı. Konstitusiyanın 158 maddəsindən 48-nin, yəni üçdəbirinin sırf insan hüquq və azadlıqları ilə bağlı olması ulu öndər Heydər Əliyevin demokratik dəyərlərə sadiqliyini bir daha təsdiqləyir. Keçmiş sovet konstitusiyalarından fərqli olaraq, müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan etdi. Konstitusiya bu deklorativ norma ilə kifayətlənməyərək başqa bir maddədə insan və vətəndaş hüquqlarını, azadlıqlarını gözləməyi və qorumağı qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının üzərinə bir vəzifə olaraq qoydu. Əsas Qanunda bütün növ insan hüquqları - əmək, istirahət, sosial təminat, mənzil toxunulmazlığı, təhlükəsiz yaşamaq, tətil, təhsil, milli mənsubiyyət hüquqları, vicdan azadlığı, fikir və söz azadlığı, sərbəst toplaşmaq hüququ, cəmiyyətin və dövlətin siyasi həyatında və dövlətin idarə olunmasında iştirak etmək hüququ və s. aydın təsbit edildi.**

Müasir hüquq doktrinasında hüquqi demokratik və konstitusion dövlət anlayışları sinonim anlayışlar kimi istifadə olunur və konstitusion dövlət anlayışı konstitusiya quruluşunun bərqərar olduğu dövləti ehtiva edir. Yeri gəlmişkən, dövlətin konstitusiyasının mövcudluğu hələ onun konstitusion və konstitusiya quruluşlu dövlət hesab olunmasına əsas vermir, çünki bu konstitusiya, ilk növbədə, demokratik prisnipləri ehtiva edən konstitusiya olmalıdır və digər tərəfdən, onun nəzərdə tutduğu prinsiplər real xarakter kəsb etməlidir. Dövlətin konstitusiya quruluşu məfhumu isə ilk növbədə, hüququn dövlət hakimiyyətinə münasibətdə aliliyi və insan hüquq və azadlıqlarının ali dəyərlər kimi tanınması və təmin olunması ilə şərtlənir. Odur ki, respublikamız müasir demokratik dövlət qurmaq üçün Konstitusiyada bu iki başlıca amili nəzərə almaya bilməzdi. Konstitusiyanın 7-ci maddəsinin ikinci hissəsinə görə, Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır. Konstitusiyanın 12-ci maddəsində isə insan və vətəndaş hüquqlarının və azadlıqlarının ali dəyərlər kimi tanınması və təmin olunmasını şərtləndirən dövlətin ali məqsədi bəyan olunur. Bu müddəaların konstitusion təsbiti respublikamızı konstitusiya quruluşlu dövlət kimi xarakterizə etməyə əsas verən ilkin amildir. Konstitusiyanın bu müddəasını insanın, onun hüquq və azadlıqlarının cəmiyyətdə ali nemət kimi dəyərləndirildiyini, dövlətin, onun bütün orqanlarının və vəzifəli şəxslərin fəaliyyətinin son nəticədə insan hüquqlarının və azadlıqlarının təmin olunmasına yönəldilməli olduğunu müəyyən edən norma kimi də xarakterizə etmək olar.

Hər bir demokratik hüquqi dövlət insan hüquqları və azadlıqları sahəsində bir sıra mühüm öhdəliklər götürür. Bunlarsız insan hüquq və azadlıqlarının heç bir əhəmiyyəti ola bilməz. Bu öhdəliklərə insan hüquqları və azadlıqlarının tanınması, insan hüquqlarına və azadlıqlarına riayət olunması, insan hüquqları və azadlıqlarının təmin olunması və insan hüquqları və azadlıqlarının müdafiəsi ilə bağlı məsələlər daxildir.

İnsan hüquqlarının və azadlıqlarının dövlət tərəfindən tanınması onu ifadə edir ki, insanın anadangəlmə təbii, pozulmaz və ayrılmaz hüquqları, həmçinin hamılıqla qəbul edilmiş beynəlxalq normalarla nəzərdə tutulmuş hüquq və azadlıqları tam həcmdə Konstitusiya və qanunlarla təsbit edilməlidir.

İnsan hüquqları və azadlıqlarının təmin olunması dövlət hakimiyyəti və yerli özünüidarə orqanları tərəfindən insan hüquq və azadlıqlarının realizəsi üçün zəruri siyasi, hüquqi, iqtisadi və mənəvi-ideoloji təminat mexanizmlərinin, habelə hər bir şəxsin bu təminat mexanizmlərindən sərbəst yararlanması imkanının yaradılması ilə şərtlənir.

İnsan hüquqları və azadlıqlarının müdafiəsi dövlət hakimiyyəti və yerli özünüidarə orqanları və onların vəzifəli şəxsləri tərəfindən insan hüquqları və azadlıqlarının pozulması hallarının qarşısını almağı və müvafiq hüquqi təminatlar sistemi yaratmağı, habelə pozulmuş hüquqların bərpası üzrə məhkəmə və inzibati orqanların təsirli fəaliyyətini nəzərdə tutur.

Azərbaycan Respublikasının Konstitusiyası hər şeydən əvvəl, insan hüquqları və azadlıqlarının hüquq və azadlıqların universallığı, hüquq və azadlıqların toxunulmazlığı, pozulmazlığı və ayrılmazlığı, insan hüquqları və azadlıqlarına dair beynəlxalq hüquq normalarının üstünlüyü, hüquq və azadlıqların təminatlılığı və hüquq və

azadlıqların birbaşa qüvvəsi kimi əsas prinsiplərini müəyyən edir. Belə ki, Konstitusiyanın 24-cü maddəsində yazılıb ki, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır. Konstitusiyanın bu müddəası insan və vətəndaş hüquqları və azadlıqlarının iki mühüm xüsusiyyətini ifadə edir. Birincisi, hüquq və azadlıqlar universal xarakter daşıyır, cəmiyyətin və dövlətin siyasi sistemindən, sosial-iqtisadi durumundan, dövlətçiliyin tarixi inkişaf xüsusiyyətlərindən asılı deyil. Hüquq və azadlıqların universal xarakteri həm də onların yaranması əsaslarını və mexanizmini ehtiva edir. Belə ki, Konstitusiyaya görə, şəxsin hüquq və azadlıqlarının yaranması onun doğulması faktı ilə şərtlənir, başqa hər hansı şərt tələb olunmur. Başqa sözlə, insan anadangəlmə, yəni doğulduğu vaxtdan etibarən Konstitusiya və qanunlarla elan olunmuş hüquq və azadlıqlara malik olur, onların daşıyıcısına çevrilir.

Konstitusiyada təsbit olunan hüquq və azadlıqların ikinci mühüm xüsusiyyəti isə onların toxunulmaz, pozulmaz və ayrılmaz olmasıdır. Toxunulmazlıq hüquq və azadlıqların ən mühüm xüsusiyyətlərindən biri olub, onlara qarşı hər cür qanunsuz və özbaşına qəsdin yolverilməzliyini ifadə edir. Pozulmazlıq insan hüquqları və azadlıqlarının aliliyini və birbaşa qüvvəsini, onların hər hansı normativ hüquqi akt və ya vəzifəli şəxs tərəfindən ləğv olunmasının, yaxud onların həyata keçirilməsinin qanunla müəyyən edilməyən hallarda məhdudlaşdırılmasının yolverilməməzliyini müəyyən edir. Bu xüsusiyyət, ilk növbədə, onu ifadə edir ki, dövlət heç bir halda insanı onun konstitusiya ilə müəyyən edilən hüquqlarından və azadlıqlarından məhrum edə bilməz. Ayrılmazlıq hüquq və azadlıqların insan iradəsindən asılı olmayaraq mövcud olduğunu, şüura, iradəyə malik ictimai varlıq kimi insanın təbiətindən irəli gəldiyini, onu xarakterizə edən zəruri faktor olduğunu əks etdirir.

Hüquq və azadlıqların toxunulmazlığı, pozulmazlığı və ayrılmazlığı Konstitusiyanın 155-ci maddəsində təsbit edilmiş belə bir müddəa ilə də təmin olunur ki, Konstitusiyanın insan hüquqları və azadlıqlarını nəzərdə tutan müddəaların ləğvi və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq hüquqi aktlarda nəzərdə tutulduğundan artıq məhdudlaşdırılması haqqında təkliflər referenduma çıxarıla bilməz.

İnsan hüquqları və azadlıqlarının universallığı, toxunulmaz, pozulmaz və ayrılmazlığı kimi prinsiplərin konstitusion təsbiti iki başlıca məsələni istisna etmir: birincisi, hüquq və azadlıqlar mütləq, qeyri-məhdud xarakter daşımır. Konstitusiyanın 24-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulduğu kimi, hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir. Bu isə hüquq və azadlıqlara malik olmanın onların həyata keçirilməsi zamanı şəxsə heç nə ilə məhdudlaşmayan davranışı həyata keçirməyə imkan vermir. İnsan hüquq və azadlıqları, ilk növbədə, digər şəxslərin eyni xarakterli hüquq və azadlıqları ilə məhdudlaşır. Yəni, şəxsin öz hüquqlarını və azadlıqlarını həyata keçirməsi, başqalarının müvafiq hüquq və azadlıqlarına heç bir xələl gətirməməli və onları məhdudlaşdırmamalıdır. Hər bir şəxsin öz hüquqlarını və azadlıqlarını müdafiə etmək imkanı qeyd olunan müddəa ilə heç bir ziddiyyət təşkil etmir. Belə ki, müdafiə qanunla müəyyən olunmuş qaydada, qanunla qadağan olunmayan üsul və vasitələrdən istifadə edilməklə həyata keçirilməlidir. İkinci, ondan ibarətdir ki, dövlət yalnız müəyyən şərtlər daxilində insan hüquqları və azadlıqlarını məhdudlaşdıra bilər. Belə məhdudlaşdırmalar ya bilavasitə Konstitusiyanın özündə nəzərdə tutulmalı və ya Konstitusiya müvafiq hüququn qanunlar əsasında məhdudlaşdırılması imkanını müəyyən etməlidir.

Buna görə də Konstitusiyada hüquq və azadlıqlar sadalanarkən bir çox hallarda onların hansı hallarda və hansı şərtlər daxilində qanunla məhdudlaşdırıla bilməsi imkanı da nəzərdə tutulur. Belə məhdudlaşdırmalar qanun əsasında həyata keçirildiyi üçün ümumi və daimi xarakter daşıyır və konkret vəziyyətlərdən asılı deyildir. Digər bir məsələ isə insan hüquq və azadlıqlarının deyil, bu hüquq və azadlıqların həyata keçirilməsinin məhdudlaşdırılması ilə bağlı olan məsələdir. Belə ki, Konstitusiyanın nəzərdə tutduğu konkret vəziyyətlərdə dövlət insan hüquqları və azadlıqlarının həyata keçirilməsini qismən və müvəqqəti məhdudlaşdıra bilər. Bu kimi məhdudlaşdırmalar zamanı dövlət bir sıra şərtlərə riayət etməlidir ki, bu şərtlər də beynəlxalq hüquqi aktlarda, məsələn, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda, habelə milli qanunvericilikdə, o cümlədən Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında Azərbaycan Respublikasının 24 dekabr 2002-ci il tarixli Konstitusiya Qanununda öz əksini tapıb. Qanunun 3-cü maddəsində insan hüquqlarının və azadlıqlarının məhdudlaşdırılmasına dair bir sıra tələblər, o cümlədən məhdudiyyətin qanunla müəyyən olunması, hüquq və azadlıqların konstitusion məzmununu dəyişməməsi kimi və sair tələblər nəzərdə tululur.

Bunlarla yanaşı, bir sıra hüquq və azadlıqların məhdudlaşdırılması, ümumiyyətlə, yolverilməzdir. Belə ki, heç bir fövqəladə vəziyyət şəxsin yaşamaq hüququnun, qəddar, insanlıqdan kənar işgəncələrə, insan ləyaqətini alçaldan davranışa və cəzaya məruz qalmamaq, müqavilə öhdəliyini yerinə yetirmək iqtidarında olmadığına görə azadlıqdan məhrum edilməmək, törədildiyi vaxt cinayət hesab edilməyən əmələ görə məsuliyyətə cəlb edilməmək kimi hüquqlarının məhdudlaşdırılması üçün əsas ola bilməz.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin üçüncü hissəsinə əsasən, müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaq şərti ilə qismən və müvəqqəti məhdudlaşdırıla bilər. Həyata keçirilməsi məhdudlaşdırılan hüquq və azadlıqlar haqqında əhaliyə qabaqcadan məlumat verilir. Bu məhdudiyyətlər digər tərəfdən həm də bir sıra təminatları nəzərdə tutur. Belə ki, bu müddəada, ilk növbədə, insan hüquq və azadlıqlarının həyata keçirilməsinin məhdudlaşdırılması mümkün olan hallar göstərilir, bu məhdudiyyətin müvəqqəti və qismən olması təsbit edilir və bununla bağlı irəlicədən xəbər verilməsi şərti nəzərdə tutulur. Müvafiq məhdudiyyətin tətbiqi zamanı da Konstitusiya Qanununda qeyd olunan tələblər mütləq nəzərə alınmalıdır.

Hüquq və azadlıqların təminatlılığı hər bir insanın əsas hüquqlarından və azadlıqlarından istifadəsi üçün imkan yaradılmasını ifadə edir. Dövlət insan hüquqları və azadlıqlarının bütün mümkün vasitələrlə real surətdə həyata keçirilməsini təmin etməyə borcludur. Hüquq və azadlıqların təminatlılığı dövlət hakimiyyətinin məhdudlaşdırılmasının özünəməxsus xüsusi mexanizmi hesab oluna bilər. Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsi konstitusiyanın digər maddələrində nəzərdə tutulan xüsusi təminat və müdafiə mexanizmlərindən fərqli olaraq, insan hüquq və azadlıqlarının konstitusion təminatını nəzərdə tutur. Həmin maddənin birinci hissəsində qeyd olunur ki, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur.

Azərbaycan Respublikasının Konstitusiyası hüquqi demokratik dövləti xarakterizə edən bir sıra digər prinsipləri, o cümlədən xalq suverenliyi, dövlət hakimiyyətinin təşkilində hakimiyyət bölgüsü, siyasi münasibətlər sferasında siyasi plüralizm, çoxpartiyalılıq, fikir və söz azadlığı, iqtisadi münasibətlər sferasında mülkiyyət müxtəlifliyi, azad sahibkarlıq və haqsız rəqabətin yolverilməzliyi və sair bu kimi digər prinsipləri də təsbit edir. Lakin bu müddəaların konstitusion qaydada təsbiti hələ problemin tam həlli deyil, bu yolda atılan ilk addımdır. İkinci ən mühüm addım bu prinsiplərin realizəsi mexanizminin formalaşması və onların həyata keçməsi ilə bağlıdır.

Konstitusiyanın qəbulundan sonra respublikamızda insan və vətəndaş hüquq və azadlıqlarının müdafiə mexanizminin formalaşması bir sıra istiqamətləri, o cümlədən Konstitusiyanın insan hüquq və azadlıqları sahəsində təsbit etdiyi prinsip və müddəaların realizəsi mexanizmini müəyyən edən və insan hüquqları sahəsində beynəlxalq standartlara cavab verən cari qanunvericilik bazasının formalaşdırılması, institusional sahədə, yəni insan hüquq və azadlıqlarının təmini və müdafiəsi bilavasitə funksiyasına daxil edilmiş dövlət hakimiyyəti orqanlarının formalaşdırılması və onların sisteminin təkmilləşdirilməsi, bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlığın qurulması və inkişaf etdirilməsi, hüquqi maarifləndirmə işinin təşkili və inkişafı, bu sahədə qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın formalaşdırılması və inkişafı, insan hüquqları sahəsində elmi araşdırmaların inkişafı kimi istiqamətləri əhatə etdi.

İnsan hüquqları sahəsində beynəlxalq standartlara cavab verən və hüquqi demokratik dövlətin tələblərinə uyğun müdafiə mexanizmlərinin yaradılmasını təmin edən cari qanunvericilik bazasının formalaşdırılması zəruri idi. Bunun üçün 1996-cı ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Hüquqi İslahatlar Komissiyası formalaşdırıldı. Bu Komissiya tərəfindən insan hüquq və azadlıqlarının daha səmərəli təminat və müdafiə mexanizmlərinin yaradılmasına xidmət edən, beynəlxalq standartlara cavab verən fundamental xarakterli bir maddi və prosessual qanunvericilik aktları, o cümlədən yeni məcəllələr, məhkəmələrin, prokurorluğun, polisin və digər hüquq-mühafizə orqanlarının hüquqi statusunu və səmərəli fəaliyyət mexanizmini tənzimləyən qanunlar beynəlxalq hüquqi aktların tələblərinə, o cümlədən Avropaya inteqrasiya gələcək beynəlxalq əməkdaşlığın prioritet istiqamətlərindən biri olduğu üçün "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının tələblərinə uyğun şəkildə hazırlandı və qəbul olundu.

İnsan hüquq və azadlıqlarına ali dəyərlər kimi xüsusi önəm verən ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə hələ 1993-cü ildən ölüm cəzasının tətbiqinə qoyulan moratorium bu islahatlar nəticəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsində cəzanın sistemindən ölüm cəzasının çıxarılması ilə nəticələndi. Bu dövrdə "Məhkəmələr və hakimlər haqqında", "Konstitusiya Məhkəməsi haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunların, habelə yeni Mülki və Mülki-prosessual, Cinayət və Cinayət-prosessual məcəllələrin qəbulu insan hüquqları sahəsində cari qanunvericilik bazasının formalaşdırılmasına çox müsbət təsir göstərdi. İnsan və vətəndaşın konstitusion hüquq və azadlıqlarının təminatını gücləndirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin imzaladığı 22 fevral 1998-ci il tarixli "İnsan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmanı ilə bu istiqamətdə dövlət siyasətinin başlıca prioritetləri müəyyən edildi. Bundan sonra Azərbaycan Respublikası Prezidentinin 18

iyun 1998-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş İnsan hüquqlarının müdafiəsi sahəsində Dövlət Poqramı bu sahədə qanunvericilik və institusional islahatların həyata keçirilməsinə yeni təkan verdi.

Həyata keçirilən islahatlar demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni məhkəmə sisteminin formalaşmasına, konstitusiya nəzarəti funksiyasını həyata keçirən xüsusi məhkəmə orqanının yaradılmasına, insan hüquqları üzrə müvəkkil institutunun təsis edilməsinə, hüquq-mühafizə fəaliyyətinin daha da təkmilləşdirilməsinə, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin hüquqi maarifləndirmə və insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyətinin genişləndirilməsinə səbəb olmaqla insan hüquqlarının təmin edilməsi sahəsində səmərəli müdafiə mexanizminin formalaşmasına gətirib çıxardı.

Respublikamızda həyata keçirilən hüquqi islahatların ikinci mərhələsi Azərbaycan Respublikasının 25 yanvar 2001-ci ildə Avropa Şurasına üzv qəbul olunması ilə başladı. Belə ki, Avropa Şurasına üzv olan respublikamız "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulmaqla insan hüquqlarının müdafiəsi sahəsində bir sıra beynəlxalq öhdəliklər, o cümlədən bu sahədəki qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması, məhkəmə sisteminin təkmilləşdirilməsi və s. ilə bağlı öhdəliklər götürdü.

Azərbaycan Respublikasının sürətli sosial-iqtisadi inkişafı, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirilən islahatlar, respublikamızın bir çox beynəlxalq təşkilatlara üzv olması və çoxsaylı beynəlxalq hüquqi aktlara qoşulması sayəsində beynəlxalq əməkdaşlığın inkişafı və sair bu kimi amillər konstitusion islahatların davam etdirilməsini şərtləndirdi. Bunun nəticəsində 2002-ci il avqustun 24-də Azərbaycan Respublikası Konstitusiyasının təxminən 24 maddəsində 39 əlavə və dəyişiklik edilməsini nəzərdə tutan layihə referendum yolu ilə qəbul olundu. Referenduma çıxarılan məsələlərin bir blokunu da insan hüquq və azadlıqlarını təsbit edən konstitusion müddəaların daha da təkmilləşdirilməsini nəzərdə tutan əlavə və dəyişikliklər təşkil edirdi.

İnsan hüquq və azadlıqları ilə bağlı konstitusion müddəaların təkmilləşdirilməsi sahəsində həyata keçirilən islahatlar 2002-ci il dekabrın 24-də qəbul olunan Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə davam etdirildi. Bu Konstitusiya Qanunu bir tərəfdən referendum yolu ilə konstitusiya müddəlarının təkmilləşdirilməsi işini davam etdirir, digər tərəfdən Avropa İnsan hüquqları Konvensiyasından irəli gələn öhdəliklərin yerinə yetirilməsinə xidmət edir. Konstitusiya Qanununda insan hüquq və azadlıqlarının həyata keçirilməsinin əsas şərtləri müəyyən olunur, məhdudlaşdırılması qadağan olunan insan hüquqları ilə bağlı müddəa təsbit olunur, qanun əsasında insan hüquqlarının və azadlıqlarının məhdudlaşdırılmasına dair tələblər konkretləşdirilir, şəxsin tutulmasına, həbsə alınmasına və ya azadlıqdan məhrum edilməsinə qoyulan məhdudiyyətlər öz əksini tapıb. Qanunda nəzərdə tutulan müddəalar bir daha insan və vətəndaşın konstitusion hüquq və azadlıqlarının təmininə əlavə imkanlar yaradır və müdafiə mexanizmini daha da təkmilləşdirir.

İnsan hüquq və azadlıqlarının əsas müdafiəçisi olan müstəqil məhkəmə hakimiyyətinin formalaşdırılması istiqamətində həyata keçirilən məhkəmə hüquq islahatlarının birinci mərhələsində əgər əsas diqqət konstitusion müddəaların tələblərinə uyğun qanunvericiliyin formalaşdırılması və institusional xarakterli idisə, yeni mərhələ daha çox qismən qanunvericiliyin təkmilləşdirilməsi və əsasən institusional islahatların həyata keçirilməsi ilə müşayiət olunur. Belə ki, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununa bir sıra əlavə və dəyişikliklərin edilməsi, "Konstitusiya Məhkəməsi haqqında" 23 dekabr 2003-cü il tarixli Azərbaycan Respublikası Qanununun, "Məhkəmə Hüquq Şurası haqqında" 28 dekabr 2004-cü il tarixli Azərbaycan Respublikası Qanununun qəbul olunması, Məhkəmə Hüquq Şurasının, Hakimlərin Seçki Komissiyasının yaradılması, Azərbaycan Respublikası məhkəmə orqanları sisteminin təkmilləşdirilməsi, o cümlədən apelyasiya məhkəmələrinin, ağır cinayətlərə dair işlər üzrə məhkəmələrin, yerli inzibati-iqtisad məhkəmələrinin yaradılması məhz yeni mərhələyə təsadüf edir.

Həyata keçirilən hüquqi islahatlar nəticəsində 2001-ci il dekabrın 28-də "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu qəbul edilmiş və bununla da insan hüquqlarının yeni qeyri-prosessual müdafiə mexanizmi formalaşdırılmışdır. Sonradan bu istiqamətdə həyata keçirilən islahatlar ombudsman təsisatının respublikanın regionlarında mərkəzlərinin yaradılması və Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkil (ombudsman) institutunun təsis olunması ilə davam etdirilmişdir.

Hüquqi demokratik dövlət quruculuğu sahəsində həyata keçirilən islahatlar seçki qanunvericiliyinin də mütəmadi təkmilləşdirilməsi və vətəndaşların ən mühüm siyasi hüquqlarından biri olan seçki hüququnun, habelə fundamental hüquqlar olan vətəndaşların dövlətin və cəmiyyətin siyasi həyatında iştirak etmək, vətəndaşların dövlətin idarə olunmasında iştirak etmək kimi hüquqlarının həyata keçirilməsi üçün lazımi zəmin yaradılması ilə müşayiət olunmuş, bu sahədə aparılan məcəlləşdirmə 2003-cü il mayın 27-də Azərbaycan Respublikası Seçki Məcəlləsinin qəbulu ilə nəticələnmişdir. Avropa Şurasının Venesiya Komissiyası ilə həyata keçirilən

əməkdaşlıq sayəsində Seçki Məcəlləsi mütəmadi təkmilləşdirilmişdir. Qeyd edə bilərik ki, bu Məcəllə hazırkı dövrün ən təkmil seçki qanunu kimi təqdim oluna bilər.

Respublikamızda insan hüquqları sahəsində həyata keçirilən islahatlar Prezident İlham Əliyevin 28 dekabr 2006-cı il tarixli "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət planının təsdiq edilməsi haqqında" sərəncamı ilə davam etdirilmişdir. Sərəncamda ötən illər ərzində Azərbaycan Respublikasının insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla səmərəli əməkdaşlığını inkişaf etdirməsi, insan hüquqları sahəsində bir çox beynəlxalq sənədlərin ratifikasiya olunması və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində bir sıra nailiyyətlərin əldə olunması vurğulanmaqla yanaşı, bu sahədə qanunvericilik və institusional islahatların həyata keçirilməsi, yeni məhkəmə sisteminin formalaşdırılması, konstitusiya nəzarəti və insan hüquqları üzrə müvəkkil institutlarının təsis edilməsi, hüquq-mühafizə fəaliyyətinin təkmilləşdirilməsi, qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələrinin fəaliyyətinin genişlənməsi kimi məsələlər yüksək qiymətləndirilir və yeni mərhələ üçün islahatların davam etdirilməsi ilə bağlı qarşıya mühüm vəzifələr qoyulur.

Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət planı normativ hüquqi aktların təkmilləşdirilməsi sahəsində, İnsan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlıq, əhalinin müxtəlif qruplarının hüquqlarının müdafəsinin gücləndirilməsi, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təmini baxımından təkmilləşdirilməsi, insan hüquqları ilə bağlı tədris, maarifləndirmə, elmi-analitik və əməkdaşlıq tədbirləri sahələrində dövlət siyasətinin başlıca prioritetlərini nəzərdə tutur. Milli Fəaliyyət planında nəzərdə tutulan bir çox tədbirlərin konkret zaman kəsiyində deyil, mütəmadi xarakter kəsb etməsi respublikamızın bu istiqamətdəki mövqeyinin sabit, dəyişməz olduğunu sübut edir və hüquqi demokratik dövlət və vətəndaş cəmiyyəti yaradılması sahəsində uğurlu nəticələr əldə edəcəyinə zəmanət verir.

**“Azərbaycan”.-**2012.-2 may.-N 95.-S.3.

# AZƏRBAYCAN XALQI ÖZ GÖRKƏMLİ LİDERİNİN MÜQƏDDƏS XATİRƏSİNİ HƏMİŞƏ HÖRMƏTLƏ YAD EDƏCƏK

**Aqiyə NAXÇIVANLI,**
Azərbaycan Müəllimlər İnstitutunun rektoru, siyasi elmlər doktoru, professor,
Milli Məclisin deputatı

**Azərbaycan Respublikası öz dövlət quruculuğunda, sosial-iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir.**

***Heydər ƏLİYEV***
***Ümummilli lider***

Ulu öndər Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli uzun illər bu böyük məktəbdən- Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, beynəlxalq aləmdə nüfuzunun daha da artması, əlaqələrənin genişlənməsi və xalqımızın rifahı naminə faydalanacaqdır. Ümummilli liderimiz Heydər Əliyev elə nadir tarixi şəxsiyyətlərdəndir ki, hələ sağlığında xalqımızın qəlbində özünə əbədi abidə ucaldaraq, canlı əfsanəyə çevrildi. Böyük tarixi şəxsiyyət bütün zəngin və mənalı həyatı boyu həmişə xalqını, Vətənini, millətini düşünüb, Azərbaycanın ən çətin məqamlarında onu üzləşdiyi faciələrdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərib.

Xalqımızın və dövlətimizin tarixində özünə əbədiyyət abidəsi ucaltmış, öz ölkəsi, xalqı üçün tarixi əhəmiyyətli işlər görmüş ümummilli liderimiz Heydər Əliyevin fəaliyyətinin hər səhifəsi Azərbaycan tarixinin yüksəliş mərhələləri ilə üst-üstə düşür. Bu ömrün hər günü xalqa, millətə, dövlətə xidmət etməyin örnəyi olmuşdur.

1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda Heydər Əlirza oğlu Əliyevin respublika rəhbəri seçilməsi ilə ölkəmizin tarixində keyfiyyətcə yeni mərhələ başlandı. Ulu öndərin respublikaya rəhbərlik etdiyi ilk vaxtlar Azərbaycanda əsas problemlərdən biri - xalqla hakimiyyət arasında uçurumun mövcudluğu, siyasi hakimiyyət daxilində yekdilliyin olmaması idi. Yüksək vəzifəli şəxslər arasında hökm sürən intriqalar nəticəsində respublikada inkişaf yox dərəcəsində idi. Yaranmış vəziyyət xalqın bir sıra köklü məsələlərinin həllinə nəinki mane olur, hətta onu daha da dərinləşdirirdi. Azərbaycana rəhbərlik etdiyi ilk günlərdən bu problemin aradan qaldırılması istiqamətində gərgin fəaliyyətə başlayan Heydər Əliyev azərbaycanlılar arasında milli birliyə, siyasi hakimiyyət daxilində yekdilliyə, xalqla hakimiyyət arasında uçrumun aradan qaldırılmasına nail oldu. Azərbaycanlıları dövlət orqanlarında vəzifələrə gətirməklə yerli kadrların yetişməsinə şərait yaratdı. Xalqımızın böyük oğlu siyasi hakimiyyəti möhkəmləndirir, azərbaycanlı kadrları müxtəlif vəzifələrə təyin edir, milli ruhu qaldırırdı. Mənsub olduğu xalqın tükənməz yaradıcılıq enerjisinin, milli müstəqillik duyğularının reallaşmasına çalışan ulu öndər Heydər Əliyev xalqımızı dünyanın ən inkişaf etmiş xalqları səviyyəsinə çıxarmaq, Azərbaycan mədəniyyətinin zənginliyini bütün dünyaya nümayiş etdirmək üçün əlindən gələni əsirgəmirdi.

Heydər Əliyev hələ kommunist partiyasının hakimiyyətdə olduğu sərt və ciddi rejimli illərdə respublikanın rəhbəri kimi milli ruhun, milli özünüdərkin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qayıtması, müstəqil dövlətçilik ideyalarının gerçəkləşdirilməsi üçün əsaslı zəmin yaratmışdır. Sərt sovet rejiminin qadağalarına baxmayaraq, Azərbaycanda milli ruhun sıxışdırılmasına nəinki yol verməmiş, əksinə, onu yüksəltmək yolunda bütün imkanlardan maksimum dərəcədə istifadə etməyi bacarmışdır. Milli sevgi və milli duyğu tarixdə ən mühüm hadisələrdən biri olub. Heydər Əliyevin əsas fəaliyyət istiqamətlərindən biri bu hissləri daha da qüvvətləndirmək və inkişaf etdirməkdən ibarət idi. Bu bağlılıq millətin dilinə, dininə, milli-mənəvi dəyərlərinə dərin hörmət bəsləməklə milli varlığı inkişaf etdirmək, Vətəni qorumaq və öz milləti üçün böyük uğurlar qazanmaqdan ibarərdir. Heydər Əliyev respublikaya rəhbərlik etdiyi ilk vaxtlarda həyatını riskə qoyaraq əsas fəaliyyətini məhz bu vəzifələrin həyata keçirilməsinə yönəltmişdi.

Ümummilli liderin xalqımız, millətimiz qarşısında ən böyük xidmətlərindən biri respublikaya birinci rəhbərliyi dövründə Azərbaycan dilinə həqiqi dövlət dili statusu qazandırmağa nail olması, sözün əsl mənasında qəhrəmanlığa bərabər addım atması olmuşdur. Bütün müttəfiq respublikalarda rus dilinin hökmranlıq etdiyi və milli dillərin sıxışdırıldığı bir vaxtda Heydər Əliyevin fəaliyyətində Azərbaycan dilinə qayğı xüsusi yer tuturdu.

Hər bir xalqın milli-mənəvi dəyərlərinin ikişafında və qorunub saxlanılmasında ana dilinin müstəsna əhəmiyyət kəsb etdiyini yaxşı bilən Heydər Əliyev Azərbaycan dilinin dövlət dili statusu alması və zənginləşdirilməsi üçün bütün imkanlardan istifadə edirdi.

1978-ci il Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edilmişdir. Həmin dövrün qayda - qanunlarına görə Azərbaycan Konstitusiyası layihəsinin geniş ümumxalq müzakirəsi keçirildi. Konstitusiya layihəsinə Azərbaycan dilinin dövlət dili kimi salınması üçün Heydər Əliyev Sovet İttifaqı rəhbərliyi ilə danışıqlar aparmağa başlayır. Digər respublikaların rəhbərləri də bundan istifadə edərək öz konstitusiyalarına dövlət dili haqqında maddə salmaq istəyirdilər. Çox ağır bir vəziyyət yaranmışdı. Belə bir şəraitdə Heydər Əliyev Sovet İttifaqının rəhbəri L.İ.Brejnevlə danışaraq vəziyyəti ətraflı və məntiqli şəkildə ona izah etdikdən sonra Azərbaycan dilinin dövlət dili kimi Konstitusiyaya salınması məsələsini birdəfəlik həll edir. Bundan sonra Konstitusiya layihəsinin ümumxalq müzakirəsinə həsr olunmuş iclas keçirildi. Həmin iclasda Heydər Əliyev birmənalı şəkildə bildirmişdir: "73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir." Bununla da Konstitusiyanın 73-cü maddəsində Azərbaycan SSR-də dövlət dili olaraq Azərbaycan dili təsbit edildi.

Azərbaycan dilinə dövlət dili statusunun verilməsi ulu öndər Heydər Əliyevin xalq, Vətən qarşısında tarixi xidmətlərindəndir. Bu, müdrik şəxsiyyətin gələcək müstəqil dövlətçiliyin mühüm atributlarından birini siyasi ustalıqla qoruduğunu göstərirdi. Heydər Əliyevin ana dilinə münasibətində Azərbaycan ədəbi dilinin saflığının qorunması və inkişaf etdirilməsi xüsusi yer tuturdu. Xalqına, millətinə qəlbən bağlı olan ulu öndər ziyalılardan, alimlərdən, bütövlükdə xalqımızdan ana dilimizin saflığını qorumağı qətiyyətlə tələb edirdi. O, ana dilinin qorunması haqqında çəkinmədən, qorxmadan, cəsarətlə deyirdi: "Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir". Ana dilinə göstərilən qayğı nəticəsində azərbaycanlıların milli ruhu yüksəlir, özlərinə olan inamı artır və müstəqillik düşüncələri güclənirdi.

Heydər Əliyevin tarixi xidmətlərindən biri də dövlət orqanlarında yerli kadrların - azərbaycanlıların işləməsinə üstünlük verməsi idi. Bundan ötrü dövrün tələblərinə cavab verən elmli, savadlı, geniş dünyagörüşə malik kadrların yetişməsinə böyük zərurət yaranırdı. Tarixi təcrübə göstərirdi ki, savadlı, siyasi hadisələrdən baş çıxara bilən və dərin elmə malik kadrlarla qurulan dövlətlər uzunömürlü, ədalətli, nüfuzlu və qüdrətli olur. Məhz bu xüsusiyyətləri diqqətdə saxlayan Heydər Əliyev Azərbaycan xalqının maariflənməsinə, mükəmməl təhsil almasına xüsusi önəm verirdi. Təhsilin inkişafı ilə əlaqədar çoxsaylı qərarlar qəbul edildi. İlk növbədə Azərbaycan Maarif Nazirliyinin tərkibi milliləşdirildi. Təhsil müəssisələrinə ayrılan vəsait xeyli artırıldı, inkişaf etmiş ölkələrin təhsil sistemi ilə əlaqələr qurmaq üçün müvafiq tədbirlər görüldü və bu sahənin maddi - texniki bazası gücləndirildi. Ulu öndərin səyi ilə çoxlu sayda yeni məktəb binaları tikildi, məktəb yaşlı uşaqlar təhsilə cəlb edildi və təhsilin kütləviləşməsi sahəsində ciddi səylər göstərildi. Azərbaycanlı qızların ali məktəblərə cəlb edilməsi məsələsinə xüsusi önəm verildi. Bunun da nəticəsində respublikada təhsilli qadınların sayı sürətlə artdı. Heydər Əliyev azərbaycanlı gənclərin SSRİ -nin müxtəlif şəhərlərində təhsil almalarına çalışırdı. O dövrdə sovet təhsil sistemi dünyanın qabaqcıl təhsil sistemi hesab olunurdu. 1970 - 1979-cu illərdə ölkənin başqa ali məktəblərini 500 nəfər azərbaycanlı bitirmişdi. Bu illər ərzində həmin ali məktəblərə azərbaycanlı gənclərin qəbulu 10 dəfə artırılmışdı. 1979-cu ildə SSRİ-nin müxtəlif şəhərlərindəki ali məktəblərdə 2800 nəfər azərbaycanlı oğlan və qız 244 ixtisas üzrə təhsil alırdı. 1982-ci ildə isə ölkənin müxtəlif ali məktəblərinin birinci kursuna 737 azərbaycanlı gənc göndərildi. Həmin gənclərə təqaüd verilməsi məsələsi də yüksək səviyyədə həll olunmuşdu. Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində respublikamız savadlılar diyarına çevrildi. Ümummilli lider özü bu barədə deyirdi:"Azərbaycanda ən böyük nailiyyət ondan ibarətdir ki, bizdə savadsız adam yoxdur. Ölkəmizdə hansı bir kəndə, hansı bir dağ kəndinə getsəniz, orada savadsız adam tapa bilməzsiniz. Azərbaycan xalqının ümumi təhsil səviyyəsinin, mədəni səviyyəsinin yüksəlməsi XX əsrdə özünü çox bariz şəkildə göstərmişdir." Heydər Əliyev sonralar SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Sov. İKP MK Siyasi Bürosunun üzvü olarkən də ürəyi xalqımızla birlikdə döyünürdü, Vətəninə, xalqına əvvəlkindən də artıq bir məhəbbətlə xidmət edirdi və Azərbaycanın bütün sahələr üzrə inkişafına böyük təkan verirdi. Bütün bunlar müstəqil Azərbaycanın bərqərar olması, sonradan bu müstəqilliyin qorunub saxlanılması və inkişafı üçün işlənib hazırlanmış uzunmüddətli bir strategiya idi. Heydər Əliyevi min hiylə və məkrlə keçmuş SSRİ-nin rəhbərliyindən uzaqlaşdırmağa nail olan Azərbaycanın düşmənlərinin əlləri - qolları bundan sonra açıldı. Bununla da Azərbaycanın tarixində növbəti dəhşətli mərhələ başlandı. Heydər Əliyev hakimiyyət başında olduğuna görə Azərbaycan torpaqlarına qarşı təcavüz planlarını reallaşdıra bilməyən qüvvələr fəallaşaraq öz işğalçılıq niyyətlərini həyata keçirməyə başladılar. Xalqımız ağır faciələrlə üzləşdi. Azərbaycanın ən yeni tarixinə "qara yanvar" kimi düşmüş 1990-cı il yanvarın 19-dan 20-nə keçən müdhiş qecədə sovet ordusu və SSRİ Daxili İşlər Nazirliyinin böyük kontingenti tərəfindən yüz otuzdan artıq günahsız Azərbaycan vətəndaşı qəddarlıqla qətlə yetirildi. Həmin vaxt Moskvada ciddi nəzarət altında olan Heydər Əliyev faciədən bir gün

sonra - yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində mətbuat konfransı keçirərək, bu dəhşətli hadisənin əsas günahkarı kimi SSRİ və respublika rəhbərliyini kəskin tənqid etdi. O, Bakıya qoşun yeridilməsi ilə əlaqədar qərar qəbul edənlərin hərəkətlərini siyasi qəbahət adlandırdı.

SSRİ-nin süqutundan sonra müstəqillik qazanmış Azərbaycanda vəziyyət getdikcə ağırlaşırdı. Ölkə dövlət idarəçiliyində təcrübəsi olmayan naşı adamlar tərəfindən idarə olunurdu. Xaos, anarxiya, özbaşınalıq baş alıb gedirdi. Daxildə hakimiyyət uğrunda gedən mübarizə torpaqlarımızın ermənilər tərəfindən asanlıqla işğalına şərait yaradırdı. 1992-1993-cü illər müstəqilliyimizin ilk illərinə təsadüf etsə də, ölkəmizin müasir tarixinə hərc-mərclik, özbaşınalıq dövrü kimi daxil oldu. Bu dövrdə müstəqillik yoluna qədəm qoymuş respublikamızın qarşısında yeni mərhələdə tarixi vəzifələr dururdu. Tarix bu vəzifələrin yerinə yetirilməsi üçün ölkənin intellektual, sosial-iqtisadi potensialından, ictimai-siyasi qüvvələrindən səmərəli istifadə olunmasını tələb edirdi. Xalqı arxasınca apara bilən, dövlət idarəçiliyində zəngin təcrübəsi olan, insanların, xalqın inandığı, etimad göstərdiyi liderə böyük ehtiyac yaranmışdı. Belə bir lider yalnız və yalnız Heydər Əiyev idi. Ulu öndər Heydər Əliyevin Azərbaycana uzunmüddətli rəhbərliyinin göstəricisi də məhz azərbaycançılıq ideyasının, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması prinsipləri əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsi, real siyasi faktlara çevrilməsidir. Məhz bu amillərə görə də 1992-ci ilin oktyabrında Azərbaycanın ziyalıları, tanınmış ictimai - siyasi xadimləri Heydər Əliyevə müraciət ünvanlayaraq onu ölkəyə rəhbərliyə dəvət etdilər. Müraciətdə deyilirdi:"Möhtərəm Heydər bəy! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz öhdəsinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübəsinə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə eləyəcək çox böyük, güclü, nüfuzlu işlək bir partiya yaratmağa qadirsiniz... Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

Ürəyi həmişə xalqı, Vətəni, milləti üçün döyünən qüdrətli şəxsiyyət Heydər Əliyev həyatının qalan hissəsini xalqına bağışlamağa hazır olduğunu bildirdi və 1993-cü il iyunun 9-da Bakıya gəldi . Bu qayıdış Azərbaycan xalqının qanı bahasına qazanılmış müstəqilliyin qorunub saxlanılması, ölkənin uçrumdan xilası, iqtisadi, siyasi böhrandan qurtulması idi. Heydər Əliyevin dühası, müdrikliyi, zəngin dövlətçilik təcrübəsi, polad iradəsi və gərgin səyi nəticəsində müstəqil Azərbaycanda həyat tədricən öz axarına düşdü.

Azərbaycan xalqının taleyi ilə pərdəarxası oyunlara, siyasi anarxiya və eksperimentlərə son qoyuldu, ölkədə cinayətkarlığın qarşısı tam alındı, bütün qanunsuz silahlı dəstələr ləğv olundu. Bunlar da bütövlükdə Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün şərait yaratdı. 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı Heydər Əliyevin qətiyyəti sayəsində alınmış, dövlət müstəqilliyi qorunub saxlanılmışdır. Ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranmasına və dövlət quruculuğu prosesinin böyük vüsət almasına müstəqil Azərbaycanın ilk Konstitusiyası zəmin yaratdı. Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi şəxsən Heydər Əliyevin adı ilə bağlıdır.

Azərbaycan Respublikasının müstəqillik illərində bütün sahələrdə olduğu kimi, milli təhsil sahəsində də bir sıra uğurlar əldə edilib. Bu uğurların ilhamverici qüvvəsi və qarantı məhz Heydər Əliyev idi. Onun müdrik daxili və xarici siyasəti, yaratdığı sabitlik təhsilin inkişafına əlveişli zəmin yaradıb. Heydər Əliyev müstəqil Azərbaycanda milli təhsil quruculuğu sahəsində də islahatın memarı idi. Onun hakimiyyətə xilaskar missiyalı qayıdışı Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni həyatının bütün sahələrində olduğu kimi, təhsil sahəsində də tənəzzülün, depressiyanın qarşısını almağa imkan verdi, təlim-tərbiyə müəssisələrinin ahəngdar işi bərpa olundu, təhsil sisteminin müstəqil dövlətçilik prinsipləri əsasında qurulmasına tarixi şərait yarandı.

Heydər Əliyevin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur. Müdrik şəxsiyyətin fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi ardıcıl prioritet sahələr olmuşdur. Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır.

Məhz ümummilli liderin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlamışdır. Xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verilməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atılması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə edilməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın demokratik dövlətlərinin və aparıcı ictimai təşkilatlarının ölkəmizə münasibəti əsaslı surətdə dəyişmişdir. Azərbaycanda həyata keçirilən xarici siyasətin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil etmişdir. Dünya təcrübəsinin bütün nailiyyətlərini, sivil beynəlxalq normaları özündə tam əks etdirən sülhsevər xarici siyasətimizin əsasında milli müstəqilliyin möhkəmləndirilməsi, dövlətlərin hüquqlarına hörmətlə yanaşılması, bütün mübahisəli məsələlərin sülh və danışıqlar yolu ilə həll edilməsi, qarşılıqlı surətdə faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq yaradılması, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətlərin aradan qaldırılması prinsipləri dayanır.

"Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması daimi, əbədi olması bundan da çətindir" - deyən Heydər Əliyevin nurlu xatirəsi həmişə hörmətlə yad olunur. Ulu öndərin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də özündən sonra möhtərəm Prezidentimiz İlham Əliyev kimi intellektual səviyyəli, dərin siyasi təfəkkürə malik, dövlət idarəçiliyini dərindən bilən bir şəxsiyyəti Azərbaycana bəxş etməsidir. Heydər Əliyev 2003-cü ilin oktyabrında xalqa müraciətində bildirmişdir:" ...O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüşkar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dünyanın inkişaf etmiş dövlətləri sırasına qoşulmaqdadır. Hazırda ölkəmiz regionda lider dövlətdir. Ölkəmizin sürətli inkişaf yoluna qədəm qoyması dünya birliyindəki əlaqələrini daha da genişləndirib. Dünyanın ən mötəbər qurumları bir çox tədbirlərini artıq Azərbaycanda keçirirlər. Getdikcə artan iqtisadi qüdrətimiz də buna zəmin yaradır. Azərbaycan Prezidentinin düşünülmüş xarici siyasəti sayəsində ölkəmiz dünyada söz sahibinə çevrilib. Azərbaycanın BMT kimi nüfuzlu bir təşkilatın Təhlükəsizlik Şurasına üzv seçilməsi və bu quruma sədrlik etməsi 20 illik müstəqillik tariximizdə qazanılan böyük uğurlardandır. Avropanın ən böyük mədəni tədbirlərindən olan "Eurovision-2012" mahnı müsabiqəsinin Azərbaycanda keçirilməsi ölkəmizin dünya birliyində artan nüfuzunun bariz nümunəsidir. Ulu öndərin siyasi xəttini uğurla davam etdirən möhtərəm Prezidentimiz bir daha təsdiqlədi ki, Heydər Əliyev siyasi strategiyasının alternativi yoxdur. Xalqımız əmindir ki, məhz ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasi strategiya Azərbaycanın adını və bayrağını daha yüksək zirvələrə qaldıracaq.

**“Xalq qəzeti”.-**2012.-3 may.-N 96.-S.3.

# HEYDƏR ƏLİYEV SİYASİ KURSU MÜSTƏQİL AZƏRBAYCANIN DÖVLƏTÇİLİK İDEOLOGİYASIDIR

**Fəttah HEYDƏROV,**
Milli Məclisin deputatı

**Milli Məclisin deputatı kimi müntəzəm olaraq bölgələrə yolum düşür. Deputatı olduğum Qəbələ rayonuna daha tez-tez baş çəkirəm. Hər səfərdə də böyük yeniliklərin, göz oxşayan, qəlbi riqqətə gətirən möhtəşəm mənzərələrin şahidi olur və qürur hissi ilə düşünürəm: İlahi, insan əzmi və zəkası zamanın sürətini necə də qabaqlaya bilərmiş!**

**İstər-istəməz buna adət etmişik - günlərimiz vaxtla mübarizədə keçib. Nə yazıqlar ki, bu mübarizədə çox vaxt özümüzü məğlub hiss etməli olmuşuq. Zamanın nəbzini tutmaq sələflərimiz üçün qərinələr boyu müşkülə çevrilib. İnkişafa, müasirlik və tərəqqiyə meyillilik bir xalq kimi ruhumuzda olsa da, onilliklər boyu "gedən qatarın" arxasınca həsrət və nisgil dolu nəzərlərlə baxmışıq. Lakin şükürlər ki, o əyyamlar artıq geridə qalıb. Biz azərbaycanlılar indi zamanın keşməkeşlərinə, təzadlarına, ziddiyyətlərinə yenilməyən bir məmləkətin vətəndaşları olmağımızla qürur duyuruq!**

Hər bir uğuru ilə öyündüyümüz müstəqil Azərbaycan bu gün sürətli inkişafı ilə sanki zamanı da qabaqlayır. Ola bilər ki, kimlərsə bunu adi, qanunauyğun hal kimi qarşılayır. Təbiidir, insan bəzən öz taleyində yaşadığı, içərisində olduğu yenilikləri nəinki tam mahiyyəti üzrə dəyərləndirə bilmir, hətta bunlara vərdiş edir. Buna görə kimisə qınamaq, məzəmmət etmək də olmur. Biz artıq ölkəmizin sürətli inkişaf və tərəqqisini, müəyyən mənada, labüd, qaçılmaz, dönməz proses kimi qiymətləndirməyə başlamışıq!

Azərbaycanın son illərdəki inqilabi nailiyyətləri fonunda hər bir yeniliyi, uğuru ictimai həyatın reallığı kimi dəyərləndiririk. Bir zamanlar əlçatmaz olan, xəyal kimi görünən iri layihələrin ani bir zamanda real həyata vəsiqə alması, şəhərlərimizin, rayonlarımızın, hətta kəndlərimizin sürətlə abadlaşaraq göz oxşaması, insanların yaşayış səviyyəsinin ildən-ilə yaxşılaşdırılması çoxlarımız üçün adiləşib.

Fəqət, nə yaxşı ki, bir qədər fərqli düşünən, bugününə dünənin baxış bucağından daha düzgün qiymət verən adil insanların da sayı az deyil. Bir müddət əvvəl Qəbələdə seçicilərimlə keçirdiyim görüşdə buna tam əmin oldum. Rayonun nurani simalı ağsaqqallarından biri dövlətimizin uğurlarını müdrikliklə qiymətləndirməklə yanaşı, insanları yaxın keçmişi unutmamağa, hamını müqayisə aparıb nəticə çıxarmağa çağırdı. "Belə olsa, biz bugünkü uğurlarımıza görə daha çox şükranlıq edərik" - deyən ağsaqqal sanki hamını silkələdi.

Bakıya dönərkən yol boyu dərin düşüncələrə dalaraq onu tamamilə haqlı sayırdım. Ahıl bir insanın, sadə kənd adamının çoxlarının fərqində olmadığı bir məsələyə necə böyük müdrikliklə yanaşması məni yaxşı mənada təsirləndirmişdi. Doğrudan da əsl həqiqət müqayisədə üzə çıxır. Və elə bu həqiqət işığında da tarixin hər bir səhifəsinə, keçmişin və bugünün gerçəkliklərinə doğru-dürüst qiymət vermək imkanı yaranır. Çətin və keşməkeşli, fəqət şərəfli müstəqillik tariximizin ötən 20 ilinə nəzər salarkən, düşünməliyik ki, böyük qürur və fəxarətlə qarşılaya biləcəyimiz uğurlarımız həddən ziyadə çoxdur. İllərin müqayisəsi fonunda hansı ağır sınaqlardan, çətinliklərdən, təlatümlərdən çıxdığımızın daha çox fərqində olmalıyıq. Geridə qalan illər tarix baxımından böyük olmasa da, xaosdan sabitliyə, tərəqqidən sürətli inkişafa keçid mərhələlərini özündə ehtiva edir.

Azərbaycan xalqı əsrlər boyu həsrətində olduğu müstəqilliyi son 20 ildə qazanıb və əzmlə qoruyub. Məhz bu baxımdan da dövlət müstəqilliyinin 20-ci ildönümü vətənini, xalqını sevən hər bir azərbaycanlı üçün möhtəşəm tarixdir. Müstəqil Azərbaycan bu illərdə inanılmaz dərəcədə dəyişib, zamanı qabaqlayaraq onilliklərə bərabər yol qət edib. Azərbaycan təkcə sosial-iqtisadi sahədə deyil, siyasi müstəvidə də bir çox problemləri geridə qoyub. Bir vaxtlar dünya xəritəsində tanınmayan, bədnam erməni lobbisinin təsiri ilə müxtəlif təzyiqlərə, təhdidlərə, ədalətsizliklərə məruz qalan, informasiya blokadası şəraitində haqlı mövqeyini dünyaya çatdıra bilməyən Azərbaycan bu gün tamam fərqli statusda çıxış edir. Respublikamız artıq bütün regional məsələlərdə əsas oyunçulardan biridir. Bölgədəki strateji əhəmiyyətli heç bir layihə Azərbaycansız gerçəkləşə bilmir. Dünya siyasətinə əsaslı təsir imkanları olan dövlətlər Azərbaycanla hesablaşır, onun mövqeyini nəzərə alırlar.

Görünür, bu uğurların fonunda müstəqilliyin ilk illərində üzləşdiyimiz acınacaqlı mənzərələr xatırlamaq belə istəmədiyimiz acı tarixə çevrilib. Lakin düşünürəm ki, müəyyən həqiqətləri unutmağa mənəvi haqqımız yoxdur. Çünki keçmişi unutsaq, bugünə qiymət verib gələcəyə doğru inamla addımlaya bilmərik. Bəli, 1991-ci ilin oktyabrından 1993-cü ilin iyun ayınadək ölkədə cərəyan edən xaos və anarxiya, özbaşınalıq mühitinin ağrı-acısını hər bir azərbaycanlı öz taleyində qabarıq hiss edirdi. O dövrdə bütövlükdə yeni müstəqil dövlətin müqəddəratı ciddi sual altında idi. Əgər Azərbaycan Xalq Cümhuriyyəti əsrin əvvəllərində cəmi 23 ay

yaşamışdısa, əsrin sonlarında dövlət müstəqilliyini bərpa edən Azərbaycan 17-18 aya nəinki müstəqilliyini, bütövlükdə dövlətçiliyini itirmək, parçalanmaq, dövlət kimi siyasi səhnədən silinmək təhlükəsi ilə üzləşmişdi.

90-cı illərin əvvəllərindən fərqli olaraq, bu gün heç kim respublikamızın müstəqilliyi ilə bağlı hansısa bədgüman fikirlərə düşmür, sovet dövrünün "nostalgiyası" ilə yaşamır. Düşünürəm ki, sadaladığım və tam əksəriyyətinə hələ toxunmadığım uğur və nailiyyətlərin əsasında bir vacib məqam dayanır - lider amili! Tarixi gerçəkliklər sübut edir ki, siyasi liderin şəxsiyyətindən və idarəetmə qabiliyyətindən, ilk növbədə, onun rəhbərlik etdiyi dövlətin, xalqın taleyi asılıdır. Belə liderlər milli dövlətçilik ideyalarının praktik surətdə gerçəkləşməsində mühüm rol oynayır, milli tərəqqi üçün dayanıqlı əsasların müəllifinə çevrilirlər. Hər bir xalqın milli özünütəsdiqinin parlaq ifadəsinə çevrilmiş müstəqil dövlətçilik konsepsiyası da məhz fenomenal liderlərin adı ilə bağlı olur. Tarixdən çox misallar gətirmək mümkündür. Məsələn, Rusiya Böyük Pyotrun vəsiyyətlərini bu gün də unutmur, onun üç əsr öncəki siyasət metoduna Rusiyanın daxili və xarici siyasəti konsepsiyasında ağırlıqlı olaraq istinad edilir. Hindistan Mhatma Qandinin müəyyənləşdirdiyi ideoloji prinsiplərə söykənərək davamlı inkişafdadır. ABŞ bu ölkənin "bani atalar"ının və İstiqlaliyyət Bəyannaməsinin müəlliflərinin önə çəkdiyi prinsipləri əsas götürür. Mao Tszedunun və Den Syaopinin əsasını qoyduğu "iqtisadi inqilab" Çinin hazırkı uğurlarına, dünyanın ən böyük fövqəlgücünə çevrilmə məramına ciddi təminatdır. Qardaş Türkiyə Cümhuriyyəti məhz böyük Mustafa Kamal Atatürkün ideyaları əsasında əbədiyaşarlıq qazanır.

Biz azərbaycanlılar üçünsə belə alternativsiz lider məhz Heydər Əliyevdir! XX əsrdə xalqımızın yetirdiyi ən böyük şəxsiyyət olan, ümumiyyətlə isə dünyanın ən böyük azərbaycanlısı sayılan Heydər Əliyevin müdrikliklə müəyyənləşdirdiyi yol Azərbaycanın alternativsiz inkişaf strategiyasına çevrilib. Ümummilli liderlik səviyyəsinə yüksəlmiş bu fenomen şəxsiyyət, ilk növbədə, Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını mükəmməl konsepsiya halına gətirib. Ümummilli lider Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyini təmin etməklə yanaşı, xalqın və dövlətin ideoloji xəttini, söykənəcəyi təməl prinsiplərini irs olaraq müəyyənləşdirdi.

Ümummilli lider Heydər Əliyev həmin dövrdə məhz azərbaycançılığı milli ideya kimi irəli sürdü. Dövlət müstəqilliyinin möhkəməndirilməsini və Azərbaycanın davamlı inkişaf yoluna çıxarılmasını həmin ideyanın başlıca konturları kimi müəyyənləşdirdi. Bu ideya həm də respublikanın demokratik, hüquqi, dünyəvi dövlətə çevrilməsi, ərazi bütövlüyü və suverenliyinin bərpası, beynəlxalq miqyasda mənafelərinin etibarlı şəkildə qorunması kimi ümdə məqsədləri ön plana çəkdi. Heydər Əliyevin yüksək dövlətçilik təfəkkürü sayəsində həyata vəsiqə alan azərbaycançılıq ideyası hər bir vətəndaşın maraqlarını özündə ehtiva etməklə, xalqın daimi birliyi və həmrəyliyində vacib amil kimi özünü doğrultdu.

Biz bəzən yanlış olaraq Azərbaycanın uğurlarını, sadəcə, ötən 18 illik dövrlə əlaqələndiririk. Halbuki müstəqillik illərində qazandığımız böyük uğurların əsası hələ ötən əsrin 70-80-ci illərində qoyulub. Bizim nəslin nümayəndələri həmin dövrün reallıqlarını daha yaxşı xatırlayırlar. Bu həmin dövr idi ki, Azərbaycan iqtisadi göstəricilərinə görə keçmiş SSRİ respublikalarından geridə qalır, sahibsiz ölkə təəssüratı yaradırdı. İqtisadi cəhətdən tənəzzül dövrünü yaşayan respublikada mənəvi-psixoloji durum da son dərəcə pisləşmişdi. Vəziyyətdən çıxış yolu kimi 1969-cu ilin 14 iyulunda vətənpərvər və enerjili kadrın - ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə irəli çəkilməsi ümumən xalqımızın taleyində yeni səhifəyə çevrildi.

Xalqına bağlı olan Heydər Əliyev çevik təşkilatçı, zamanın nəbzini tuta bilən rəhbər kimi sübut etdi ki, istək, iradə, vətənpərvərlik və milli təəssübkeşlik hissi olan zaman az müddətdə çox uğurlara nail olmaq mümkündür. Və elə bu daxili əminliklə də problemlər məngənəsində çapalayan cəmiyyətin özünəinamını bərpa etdi. İlk növbədə milli ruhu məhv olmaq təhlükəsindən qorudu, xalqı tarixi keçmişinə qovuşdurdu. Ən əsası, hətta imperiya dövründə belə millətə vicdanlı, sədaqətli, ləyaqətli xidmətin parlaq nümunəsini yaratdı. İnanmıram ki, 70 illik sovetlər birliyi dövründə bu imperiya hüdudlarında öz xalqına Heydər Əliyev qədər sədaqətlə, əzmlə xidmət edən ikinci bir rəhbər olub!

Ümummilli lider tez-tez xalq arasına çıxır, sadə vətəndaşlarla canlı ünsiyyət yaratmaqla mövcud problemləri, eləcə də dövlət məmurlarının işə münasibətini öyrənirdi. Xüsusən hələ çox tanınmadığı ilk aylarda Heydər Əliyev sərbəst qiyafədə dükan-mağazalarda, istehsal müəssisələrində olur, vəziyyətlə yerindəcə maraqlanırdı. Vaxtilə Naxçıvan Muxtar Respublikasının rayon partiya komitələrinə, müxtəlif nazirliklərə rəhbərlik etmiş bir şəxs kimi xüsusi vurğulamaq istərdim ki, Heydər Əliyevin hələ 70-ci illərdə məmurlar qarşısında müəyyənləşdirdiyi ən ciddi tələb xalqa layiqli xidmət göstərmək, insanların inamını doğrultmaq idi. Məhz bu keyfiyyəti ilə Heydər Əliyev hələ o illərdə cəmiyyətin mənəvi bütövlüyünə nail olmuşdu.

Əminliklə deyə bilərik ki, 1969-1982-ci illərdə həyatımızın bütün sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsinin ən dolğun, şərəfli səhifələrini təşkil edir. Azərbaycan məhz bu illərdə de-fakto müstəqilliyi üçün etibarlı zəmin formalaşdırdı. Heydər Əliyev SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə irəli çəkildikdən sonra respublikaya rəhbərlik edən naşı rəhbərlər, təəssüf ki, Azərbaycanı yenidən iqtisadi və mənəvi tənəzzül məngənəsinə sürüklədilər. 80-ci illərin sonuna yaxın bədnam

qonşularımız imperiya rəhbərliyinin himayəsi altında Azərbaycana qarşı aşkar ərazi iddiaları ilə çıxış etməyə başladılar. Bütün bunlara göz yuma bilmədiyi üçün SSRİ rəhbərliyindən istefaya gedən Heydər Əliyev hətta təqaüddə olarkən də millətinin haqq səsini ucaltmaqdan çəkinmirdi. 1990-cı ilin qanlı yanvarından dərhal sonra ailəsi ilə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gedən bu fenomen şəxsiyyət imperiya rəhbərliyini Kremlin bir addımlığında ən sərt ittihamlara məruz qoydu. Xalqının faciəsinə vətənpərvərliklə reaksiya verdi, dərdinə şərik çıxdı.

1990-cı ilin iyununda ulu öndərin Moskvadan Azərbaycana dönüşü ilə ölkəmizdə kortəbii xarakter daşıyan xalq hərəkatı tədricən konkret məcraya salındı. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda Azərbaycanın dövlət müstəqilliyinin bərpasına xidmət edən ilk hüquqi addımlar atıldı. 1991-ci ildə müstəqilliyə yenicə qovuşmuş Azərbaycanda milli mənafe və dövlətçilik maraqlarının təmsilçisi olmaq kimi müqəddəs amalı özünün siyasi idealı, əsas strateji xətti seçən Yeni Azərbaycan Partiyasının yaranması da tarixi zərurətdən, o illərdə mövcud olmuş ideoloji-siyasi durumun doğurduğu milli tələbatdan irəli gəlirdi. Azərbaycanın taleyini düşünən insanlar həmin dövrdə ölkəni böhrandan çıxara biləcək insanın, xalqın sınanmış lideri Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdilər.

Tarixi inkişafın gedişinə təsir göstərərək hadisələrin fövqündə dayanan böyük siyasi liderlər ictimai proseslərin ən böhranlı, dönüş anında məsuliyyəti çiyinlərinə götürərək bütöv bir xalqın nicatına çevrilirlər. Bu gerçəklik fonunda deyə bilərəm ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1993-cü il iyunun 9-da xalqın təkidli istəyinə səs verərək Bakıya qayıtması onun nə qədər qətiyyətli, prinsipial, heç bir riskdən çəkinməyən şəxsiyyət olduğunu bir daha təsdiqləyir. Respublikada hərc-mərcliyin, dərəbəyliyin hökm sürdüyü, qanunsuz silahlı dəstələrin at oynatdığı, düşmənlə mübarizə apara biləcək nizami ordunun olmadığı, ərazilərin işğalının gündən-günə genişləndiyi, bir çox xarici dövlətlərin Azərbaycana qənim kəsildiyi, beynəlxalq aləmdə ölkəmizin təkləndiyi bir vaxtda hakimiyyətə gəlib hadisələrin gedişini qısa zamanda dəyişmək, normal məcrasına salmaq böyük siyasət və müdriklik tələb edirdi.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan cəmiyyətində müstəqil dövlətçilik ideyalarının praktik şəkildə bərqərar olmasına fundamental əsaslar yarandı. Ölkə xaosdan, vətəndaş müharibəsindən, hərc-mərclikdən, hüquqi nihilizmdən, bir sözlə, dövlətçiliyini itirmək təhlükəsindən qurtuldu. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrində Heydər Əliyev özünün qətiyyəti və xarizması ilə Azərbaycan dövlətçiliyini ağır faciələrdən xilas etdi. Ümummilli lider siyasi sabitliyi təmin etməklə yanaşı, demokratik dövlət modeli konsepsiyasını da uğurla həyata keçirməyə başladı.

Hər bir azərbaycanlı bu ideologiya və baxışlar sistemində özünün ictimai dəyərlər dərəcəsinə yüksəlmiş istək və arzularının dolğun ifadəsini tapdı. Özünü inkişaf prosesinin müşahidəçisi deyil, fəal iştirakçısı qismində gördü. Yəni "Azərbaycanın davamlı inkişafının Heydər Əliyev konsepsiyası" ümummilli ideyanın təmin edilməsi ilə yanaşı, hər bir fərdin şəxsi idealının həyata keçirilməsini nəzərdə tutan prinsip və vəzifələri üzvi şəkildə əks etdirdi. Əslində, Heydər Əliyev ideyalarını müstəsna edən və onun uğurunu şərtləndirən başlıca cəhətlərdən biri də məhz bu idi.

Ulu öndər xalqın təkidli istəyi ilə hakimiyyətə qayıtdıqdan dərhal sonra dövlət qulluğu üçün milli kadrların hazırlanması işini daha geniş miqyasda, sistemli şəkildə davam etdirdi. Müdrik rəhbərin idarəçilik metodu, dövlət qulluğunda üstünlük verdiyi meyarlar komandadakı müsbət əhval-ruhiyyəni daha da gücləndirirdi. Ulu öndərin yüksək vətənpərvərliyi, ekstremal situasiyalarda düzgün və ədalətli qərarlar qəbul etmək bacarığı, tükənməz enerjisi, işgüzarlığı, intuisiyası onun rəhbərlik etdiyi komandanın çevikliyinə və işləkliyinə təkan verdi. Məmurlarda məsuliyyəti, dövlət strukturlarında şəffaflıq və hesabatlılığı gücləndirdi.

Ümummilli liderin Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində ilk mühüm addımlarından biri cəmiyyətin vahidliyinin, bütövlüyünün təmin edilməsi, milli ideologiyanın sistem halında təqdimatı oldu. Bu bir reallıqdır ki, ulu öndər cəmiyyətin vahidliyini təmin edərək, onun müxtəlif istiqamətlər - sosial bərabərsizlik, regional, dini və milli mənsubiyyət amili baxımından parçalanmasına imkan vermədi. Bu, Azərbaycan dövlətçiliyinin yaşaması, inkişaf etməsi baxımından son dərəcə vacib amil idi və ötən illərin reallıqları da bunu təsdiqlədi. 2001-ci ilin noyabrında - Dünya Azərbaycanlılarının I Qurultayında "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam" - deyən ulu öndər dünya azərbaycanlılarını azərbaycançılıq ideyası ətrafında səfərbər etdi.

Heydər Əliyevin misilsiz rəhbər olmasını təsdiq edən çoxsaylı faktlardan biri də aparılan torpaq islahatları idi. Ulu öndər Azərbaycanın çoxminillik tarixində torpağı kəndliyə təmənnasız olaraq bağışlayan yeganə rəhbər oldu. Bir məqamı da vurğulamaq istərdim ki, Heydər Əliyevin torpaq islahatlarına 1996-cı ildə başladığını deyənlər, əslində, böyük yanlışlığa yol verirlər. Hələ 1992-ci ildə Naxçıvan Ali Məclisinə rəhbərlik edərkən Heydər Əliyevin kənd təsərrüfatında kolxoz-sovxoz sisteminin xüsusi mülkiyyətə keçirilməsi ilə bağlı qəbul etdiyi qərar nəinki Azərbaycanda, ümumilikdə ittifaq miqyasında kənd təsərrüfatında ümumi mülkiyyətçiliyin

ləğvinə dair ilk təşəbbüs idi. 4-5 il sonra isə ümummilli lider bu düzgün təşəbbüsünü artıq bütün Azərbaycana şamil etdi. Həqiqəti demək lazımdır. Həmin vaxtlar çoxları bu islahatların uğurla nəticələnəcəyinə şübhə edirdilər. Hesab edirdilər ki, kəndli ona verilən torpaqdan istifadə edə bilməcəyək, dövlət də bundan xeyli ziyana düşəcək. Amma Heydər Əliyev bu cür fikirlərə qəti etiraz edir, "Mən Azərbaycan kəndlisinə inanıram, onu torpaq sahibi etsək, o öz təsərrüfatını yaxşı idarə edəcək, ölkəyə də xeyir verəcək" - deyirdi. Ulu öndərin səyi nəticəsində Azərbaycan kəndlisi bazar iqtisadiyyatı dövründə sahibkarlıq təfəkkürünə yiyələndi, torpağına sahibliyi ilə öz ruzisini halallıqla əldə etməyi öyrəndi. Eyni zamanda, respublikamız aqrar sektor üzrə islahatlarda postsovet məkanı ölkələri üçün model dövlətə çevrildi.

Ulu öndər Heydər Əliyevin şəxsiyyət kimi böyüklüyü həm də əsasını qoyduğu siyasəti yeni dövrün tələblərinə uyğun davam etdirə biləcək qüdrətli lider və etibarlı davamçını yetişdirməsindədir. Möhtərəm Prezident İlham Əliyevin müəllifliyi ilə son 9 ildə Azərbaycanın möhtəşəm inkişaf salnaməsinin yeni parlaq səhifələri yazılır. Heydər Əliyevin strateji inkişaf kursunu müasir mərhələyə uyğun zənginləşdirən dövlət rəhbərinin yürütdüyü məqsədyönlü siyasətin uğurları çağdaş Azərbaycanın şanlı tarixinə çevrilir. Bəli, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin həyata keçirdiyi siyasət bu gün uğurla davam etdirilir. Cəmiyyət dinamik inkişaf edir, müasir dünyada gedən proseslərə uyğun olaraq Azərbaycanın sosial-iqtisadi həyatında, qanunlarında, insanların həyat tərzində, idarəçilikdə müvafiq dəyişikliklər həyata keçirilir. İnsanların təfəkkür, düşüncə tərzi hazırkı dövrün çağırışlarına uyğun olaraq yeniləşir, müasirləşir. Eyni zamanda milli özünəməxsusluq və adət-ənənələr də qorunub saxlanılır.

Düşünürəm ki, cənab İlham Əliyevin əldə etdiyi böyük uğurlarının əsas səbəblərindən biri də məhz onun qətiyyətli və prinsipial rəhbər olmasıdır. Prezident qısa müddətdə Azərbaycan dövlətçiliyini hər cür cinayətkar qəsddən qorumağa qadir siyasətçi olduğunu, milli maraqlar naminə cəsarətli qərarlar qəbul etmək bacarığını nümayiş etdirdi. Respublikada ictimai-siyasi sabitlik əleyhinə yönəlmiş bütün cəhdlərin qarşısı xalqın dəstəyi ilə qətiyyətlə alındı, cəmiyyətdə barış, həmrəylik ovqatı gücləndirildi. 2003-cü ilin prezident, 2005-ci ilin parlament seçkilərindən əvvəl və sonra respublikada ictimai-siyasi sabitlik əleyhinə yönəlmiş xarici və daxili təzahürləri qətiyyətlə aradan qaldıran dövlət başçısı dövlətçiliyin müdafiəsi üçün zəruri keyfiyyətlərə malik lider olduğunu sübuta yetirdi. Cənab İlham Əliyev ən mürəkkəb siyasi şəraitdə birləşdiricilik keyfiyyətləri sayəsində xalqı öz ətrafına, Heydər Əliyev ideyalarının cazibəsinə toplaya bildi.

Dövlət rəhbəri müasir dünyada iqtisadi inkişaf potensialının hər bir dövlətin gücünü müəyyən edən başlıca amil kimi çıxış etdiyini haqlı olaraq ilk gündən önə çəkdi. Xüsusi vurğuladı ki, ölkənin və xalqın bütün problemlərinin, - sosial çətinliklərin aradan qaldırılmasından tutmuş, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinədək, - hər bir maneənin dəf edilməsinin ən başlıca yolu məhz iqtisadi tərəqqidən keçir. Dinamik inkişafda olan iqtisadiyyat əslində, sabitlik, əmin-amanlıq, demokratiya və vətəndaş cəmiyyəti, milli təhlükəsizlik, səmərəli xarici siyasət deməkdir. Təsadüfi deyildir ki, Prezident İlham Əliyevin ötən fəaliyyəti dövründə əsas ağırlıq mərkəzi bu sahənin üzərinə salındı.

İstənilən hər hansı ideya cəmiyyət üçün o vaxt cəlbedici görünür ki, onun praktik tətbiq və reallaşdırılması imkanları olsun. İrəli sürülən məqsədlər, ideyalar nə qədər cəlbedici görünsə belə, bütün bunların real icra mexanizminə əsaslanmaması bəzən onların kağız üzərində qalması, müxtəlif təqdimatlar, müzakirələr səviyyəsindən kənara çıxmaması ilə nəticələnir. Ən əhəmiyyətli ideyaları da sadəcə müzakirələr səviyyəsində saxlamaqla qısa müddətdə gözdən salmaq olar. Çünki, insanları sözdənsə real iş və nəticə daha çox maraqlandırır. Bu mənada, dövlət başçısı İlham Əliyevin ötən illərdə yürütdüyü siyasətin real, əməli fəaliyyətə söykəndiyinə hər bir vətəndaş əmin oldu. Prezident səlahiyyətlərini Heydər Əliyev kimi dahi siyasətçidən sonra uğurla davam etdirmək, xalqın sevimli rəhbərinə çevrilmək üçün İlham Əliyevdə lazımi səriştə, bacarıq, qabiliyyət, intellektual səviyyə, idarəçilik keyfiyyətləri var.

İcra prosesinə dövlət başçısı səviyyəsində ciddi nəzarət az zamanda böyük nəticələrin əldə olunmasına imkan yaratdı. Dövlət başçısı bütün müdrik dövlət adamlarına xas olan qabiliyyətlə hər kəslə dil tapmağı, Prezident-vətəndaş arasındakı psixoloji səddi aradan götürməyi bacardı. Nəticədə illərdən bəri həllini gözləyən sosial problemlər nizamlandı, xalqın firavan, rahat yaşayışına xidmət edən tədbirlər qətiyyətli liderin iradəsi və təşkilatçılıq qabiliyyəti nəticəsində reallığa çevrildi.

Hələ Sovetlər Birliyi dövründə belə, evində mavi yanacaq görməyən bir sıra kəndlərə, ucqar yaşayış məntəqələrinə qaz çəkildi. Ən müasir tələblərə cavab verən yeni məktəblərin, səhiyyə ocaqlarının, körpülərin, yolların və s. tikintisi - bütün bunlar regionlarda mənəvi ab-havanın yaxşılaşmasına səbəb oldu, Azərbaycan insanının dövlətə, onun rəhbərinə etimadını, sevgisini və rəğbətini daha da artırdı.

Azərbaycan xalqının düşüncəsində su çəkmək daim savab, halal iş sayılıb. Böyük messenat Hacı Zeynalabdin Tağıyev məhz Bakıya Şollar suyu çəkməklə xalqının qəlbində daim yaşayır, xatırlanır. Ötən əsrin 70-80-ci illərində ulu öndər Heydər Əliyev Kürdən paytaxta su xətti çəkməklə ağır problemi aradan qaldırdı.

XXI əsrin əvvəlində isə bu xeyirxah, nəcib, insanpərvər missiyanı xalqını və dövlətini qəlbən, ruhən sevən Prezident İlham Əliyev üzərinə götürdü! Oğuz-İsmayıllı bölgəsindən Bakıya su kəmərinin çəkilməsi ilə bağlı prinsipial qərarın qəbulu İlham Əliyevin xalqına yaxşılıq edən rəhbər olduğunu bir daha göstərdi.

Düşünürəm ki, Prezident İlham Əliyevin rəhbərliyi altında son illərdə qazandığımız minlərlə, on minlərlə uğurlu faktı sadalamağa lüzum yoxdur. Bu siyasətin ən böyük uğuru isə bütövlükdə Azərbaycan insanının təfəkkür və düşüncə baxımından müasirləşməsi, modern baxışlar sisteminə liberal yanaşması, mental və bəşəri dəyərləri uzlaşdıra bilməsidir. Bəli, 20 il bundan əvvəl dünyaya göz açan körpələr indi müstəqil Azərbaycanın 20 yaşlı, yetkin, müasir düşüncəli gəncləridir. Onlar tam olaraq müstəqillik dövründə yaşayıb, formalaşıb, bu nemətin şirinliyini dadıblar. Şəxsi qənaətim belədir ki, onlar yeni ictimai-iqtisadi formasiyada, azərbaycançılıq və müstəqillik ideyası ruhunda formalaşdıqları üçün müstəqilliyin qədrini, qiymətini orta və yaşlı nəsildən daha yaxşı bilməlidirlər. Hər cür nostalgiyadan uzaq olan müasir düşüncəli, kreativ, yenilikçi ruhlu bu gənclik müstəqilliyimizin, ulu öndərin təbirincə desək, əbədi, dönməz olmasının etibarlı təminatçısıdır.

Milli Məclisin deputatı olaraq bu mütərəqqi inkişaf proseslərinə Heydər Əliyev Fondunun əvəzsiz töhfələrini də xüsusi vurğulamaq istərdim. Fond ulu öndərin zəngin siyasi irsinin təbliğatçısı olmaqla yanaşı, milli-mənəvi, mədəni dəyərlərimizi, musiqimizi dünya miqyasında tanıdır. İnanıram ki, Fondun prezidentinin yüksək təşkilatçılığı altında may ayında respublikamız daha bir möhtəşəm musiqi festivalına layiqli ev sahibliyi edəcək. Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü ilə son 3 ildə Qəbələ şəhərində təşkil olunan musiqi festivallarını xüsusilə qeyd etmək istərdim. Bu və digər tədbirlər sayəsində dünya müstəqil Azərbaycanın uğurlarını daha yaxından tanımaq imkanı əldə edib. Bir rayonun timsalında dünya Azərbaycanın möhtəşəmliyini, müasirliyini, quruculuğunu, abadlığını, yüksək zövqə malikliyini görür.

Bu gün Milli Məclisdə təmsilçisi olduğum Qəbələ rayonu sanki qələbənin rəmzinə çevrilib. Prezident İlham Əliyevin təbirincə desək, hətta xarici ölkələrin paytaxt şəhərləri ilə müqayisə olunacaq səviyyədədir. Qəbələdə kəndlər qəsəbə, şəhər mənzərəsi alıb. Abad yollar, çoxsaylı sosial infrastrukturlar, məktəblər, xəstəxanalar, idman kompleksləri, müəssisələr, istirahət mərkəzləri, parklar - bütün bunlar kəndlərimizin artıq adi görüntüsünə çevrilib. Bir zəruri fakta nəzər salmaq istərdim. Əgər 20 il öncə Qəbələdən Bakıya və digər ölkələrə kütləvi axın vardısa, son illərdə bu axın geriyə doğru yönəlib. Qəbələlilər öz doğma yurdlarına - artıq abad və gözəl Qəbələyə kütləvi şəkildə qayıdırlar. Təsadüfi deyildir ki, son 15 ildə Qəbələ sakinlərinin sayı təxminən 20 faiz artıb. İnsanlar üçün Qəbələdə iş yeri tapmaq problem deyil. Amma sahibkar üçün işçi tapmaq artıq problemə çevrilir. Buna görə də Qəbələ indi ətraf bölgələrdən olan vətəndaşlarımızın da ruzi qapısına çevrilib.

Ölkəmizdə ən uzun uçuş xəttinə - 3600 metrilik zolağa malik olan Qəbələ Beynəlxalq Hava Limanı isə rayonun artıq Azərbaycan üçün vacib strateji əhəmiyyət daşıdığını nümayiş etdirir. Qəbələ mübaliğəsiz deyək ki, Azərbaycanın turizm paytaxtına çevrilir. 4 beşulduzlu möhtəşəm otelə, eləcə də yüzlərlə mehmanxanaya malik olan rayonun turizm potensialı il ərzində yüz minlərlə insana xidmət etmək imkanındadır və bunu edir də. Qəbələdə fəaliyyət göstərən konserv zavodlarının, digər müəssisələrin məhsulları dünyanın 30-dan artıq ölkəsinə keyfiyyətli Azərbaycan malı kimi ixrac olunur.

Mənim qəlbimi qürur hissi ilə dolduran faktlardan biri də rayonda piano fabrikinin açılmasıdır. Postsovet məkanında yalnız Rusiya və Ukraynada analogiyası olan bu müəssisə həm də Azərbaycanın mədəniyyət, incəsənət, o cümlədən musiqi potensialının müasirliyini, insanlarımızın bəşəri musiqi dəyərlərinə olan sıx bağlılığını aydın nümayiş etdirir.

Bütün bu nailiyyətlərə yalnız və yalnız möhtərəm Prezident İlham Əliyevin böyük qayğısının, himayəsinin nəticəsində nail olunub. Məhz dövlət başçısının diqqəti sayəsində bu gün Qəbələ davamlı inkişaf və yüksəliş yolundadır.

Bir məsələnin də üzərində xüsusi dayanmaq istərdim. Prezident İlham Əliyevin 9 illik fəaliyyəti yalnız yüksək quruculuq, abadlıq, inkişaf, tərəqqi kimi anlayışlarla səciyyələnmir. Dövlət başçısı az müddətdə insan hüquq və azadlıqlarının təmini, ölkədə demokratik proseslərin dərinləşdirilməsi istiqamətində də qətiyyətli addımlar atdı. Bununla da İlham Əliyev demokratiyanın Azərbaycan xalqı üçün qətiyyən yabançı idarəetmə forması olmadığını bütün dünyaya sübuta yetirdi. Demokratiya hayqırtıları ilə bizə təsir göstərmək istəyən dövlətlərə öz yerini göstərərək nümayiş etdirdi ki, əsl demokratiya təkamül yolu ilə, tədricən bərqərar olunur. Azərbaycan iqtisadi cəhətdən inkişaf etdikcə, ölkədə demokratik proseslər də dərinləşir, qanunçuluq möhkəmlənir. Yaşayış səviyyəsi, maddi rifah halı yüksələn insanlar demokratiyanın həqiqi mahiyyətini dərk etməyə başlayırlar.

Azərbaycan cəmiyyəti yüksək demokratik inkişafa hər hansı dağıdıcı inqilabla deyil, məhz təkamül yolu ilə nail olmağın zəruriliyini təzahür etdirir. Azərbaycanın demokratik inkişafında yeni mərhələ uğurla davam edir. Xalq məhz bugünkü iqtidarın səmərəli fəaliyyətinin bəhrəsi olan iqtisadi, elmi, mədəni inqilabı dəstəkləyir. Son illərdə ölkədə baş verən möhtəşəm, inqilabi yeniliklər, modernləşmə prosesləri ölkəsini, xalqını sevən hər bir vətəndaş tərəfindən razılıqla qarşılanır. Azərbaycan iqtidarı iqtisadi, siyasi, hüquqi, demokratik islahatları bu gün də inamla davam etdirir. Ölkə ildən-ilə yox, gündən-günə inkişaf edir, müasirləşir, bütün sahələrdə yeniləşmə baş verir.

Bu gün Azərbaycan dünya miqyasında mükəmməl iqtisadi inkişaf modeli olan, heç kəsin vassalı olmayan müstəqil dövlət kimi tanınır!

Bu gün Azərbaycanda həyata keçirilən siyasi-hüquqi islahatlar və modernləşmə kursu keçid dövrünü yaşayan ölkələr üçün örnək-nümunə olaraq qəbul edilir!

Bu gün Azərbaycan müstəqil siyasət yürüdən dövlət olmaqla yanaşı, BMT Təhlükəsizlik Şurasının üzvü kimi qlobal proseslərə fəal nüfuz edir!

Respublikamız dünyanın enerji təhlükəsizliyinə mühüm töhfələrini verir, regionun ən iri layihələrini maliyyələşdirir!

Bu gün Azərbaycanda xalqla hakimiyyət arasında çox güclü mənəvi birlik, həmrəylik var. Bu birlik sayəsində ölkə iqtidarı yaxın illərdə daha böyük iqtisadi-mədəni inqilablara müəlliflik edəcək!

Bəli, məhz İlham Əliyevin fenomenal liderlik keyfiyyətləri sayəsində biz azərbaycanlılar zamanın mənfi təzahürləri ilə mübarizədən qalib çıxdıq. Heydər Əliyev siyasi kursunu müstəqil Azərbaycanın dövlətçilik ideologiyası kimi qəbul edərək, daha böyük zəfərlərə doğru əzmlə addımlayırıq...

**“Azərbaycan”.-**2012.-3 may.-N 96.-S.2.

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA HÜQUQİ DÖVLƏTİN BANİSİDİR

**Əli HÜSEYNLİ,**
Milli Məclisin komitə sədri

**Bəşər tarixinin ən qüdrətli dövlət və siyasət adamları, dahi və müdrik şəxsiyyətləri sırasında layiqli yer tutan ümummilli liderimiz, böyük öndərimiz Heydər Əliyevin zəngin irsi müstəqil Azərbaycan dövlətinin inkişaf və tərəqqi yolunun etibarlı bələdçisi olmaqla, indiki və gələcək nəsillər üçün əvəzsiz sərvət, böyük qürur və iftixar mənbəyidir. Bu irsi öyrənmək və təbliğ etmək bizim hər birimizin məsul və şərəfli borcudur.**

XX-XXI əsrlərin qovuşuğunda otuz ildən artıq bir müddətdə Azərbaycan dövlətçiliyinin taleyi dahi və uzaqgörən şəxsiyyət, öz xalqını və vətənini canından artıq sevən ən böyük azərbaycanlı, şərəfli adı bizim üçün həmişə əziz və unudulmaz olan Heydər Əliyevlə bağlı olmuşdur. Bu illər xalqımızın milli mənlik şüurunun oyanışı, azadlıq və müstəqillik hissinin güclənməsi, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatının vüsətli dirçəlişi ilə əlamətdar olmuşdur. Bütün həyatını və siyasi fəaliyyətini böyük tarixi keçmişi və zəngin mədəniyyəti ilə fəxr etdiyi xalqının və vətəninin tərəqqisinə həsr etmiş Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxaraq, ölçüyəgəlməz irəliləyişə nail olmuşdur. Çoxəsrlik dövlətçilik tariximizdə müstəsna yeri olan ümummilli liderimizin fəaliyyəti təkcə Azərbaycan üçün deyil, həm də postsovet məkanı üçün mühüm əhəmiyyət daşımaqla yanaşı, dünya miqyasında gedən proseslərə də təsir göstərmişdir.

...1969-cu ilin iyulunda Heydər Əliyevin respublika rəhbəri seçilməsi ilə Azərbaycanın taleyində və tarixində dönüş başlandı. Xalqımızın mənəvi-əxlaqi dəyərlərinə söykənən geniş miqyaslı tədbirlər həyata keçirilməsi sayəsində insanlarda nəinki milli ruhun və özünüdərkin oyanışını şərtləndirdi, həmçinin, onların ictimai fəallığının və işgüzarlığının yüksəlməsinə təkan verdi. Milli qürur hissinin güclənməsi, milli şüurun yüksəlməsi sosial-iqtisadi və mədəni həyatın bütün sahələrinin dirçəlişi üçün zəmin oldu. Bu, xalq ruhuna dərindən bələd olan respublika rəhbərinin təşəbbüskarlığının və uzaqgörənliyinin nəticəsi idi. Tarixi hadisələrin sonrakı gedişi də sübut etdi ki, Heydər Əliyevin 1969-1982-ci illərdə gördüyü işlər gələcəkdə milli dövlətçilik ideyalarının hərəkətverici qüvvəyə çevrilməsi və cəmiyyətin bu ideya ətrafında səfərbər olması üçün şərait yaratdı. Həmin dövrdə respublikada bərqərar edilən əsl işgüzarlıq mühiti, sosial ədalətə əsaslanan sağlam mənəvi-psixoloji ab-hava iqtisadi tərəqqinin yüksək həddə çatmasına, Azərbaycanın keçmiş ittifaq miqyasında nüfuz qazanmasına, hətta beynəlxalq səviyyədə tanınmasına imkan verdi. Azərbaycanın indiki siyasi və iqtisadi müstəqilliyi, beynəlxalq münasibətlər sisteminə və dünya iqtisadiyyatına inteqrasiyası hələ 1970-1980-ci illərdə təməli Heydər Əliyev tərəfindən qoyulmuş potensiala əsaslanır.

XX-XXI əsrlərin qovuşuğunda Azərbaycanın demokratik və bəşəri dəyərlərlə sadiq müstəqil bir dövlət kimi formalaşması böyük öndərimizin titanik siyasi fəaliyyətinin nəticəsi, 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə onun hakimiyyətə qayıdışının bəhrəsidir.

Dünya siyasətinin tanınmış simalarından biri, Türkiyənin doqquzuncu prezidenti Süleyman Dəmirəl "Qardaşım, dostum Prezident Heydər Əliyev" məqaləsində ümummilli liderimizin həmin dövrdəki tarixi missiyasını çox düzgün ifadə edərək yazmışdır: "Çörçill ingilis millətinə 40 il xidmət etdi, ancaq bu xidmətin sonunda, 1940-cı ildə lazım oldu. O zaman Çörçillin edəcəyi xidməti göstərəcək ikinci adam yox idi. Bəşər tarixində insanlar hər zaman millətinə xidmət edir, ancaq bəzən lazım olurlar. Ruzveltin 1942-ci ildə, De Qollun 1958-ci ildə, Adenauerin 1946-cı ildə lazım olduğu kimi... Hörmətli Heydər Əliyev Azərbaycan millətinə çox xidmət etmişdir, amma 1993-cü ildə lazım idi. Onun gördüyü işi görəcək başqa heç kim yox idi. Yaxşı ki, O, vardı! Biz belə düşündük və haqlı çıxdıq!"

Hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, xalqın birliyinin təmin olunmasını, ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş üçün zəmin yaradılmasını özünün dövlətçilik strategiyasının əsas istiqaməti kimi müəyyənləşdirdi.

"Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin onuncu ildönümü haqqında" Azərbaycan Respublikası Prezidentinin 20 mart 2001-ci il tarixli fərmanında deyilir: "Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini əldə etməsi keçmiş SSRİ-də və bütün dünyada 80-ci illərin ortalarından başlayaraq gedən ictimai-siyasi proseslərin labüd nəticəsi idi. Bu obyektiv tarixi gerçəklik SSRİ-nin dağılmasına, Kommunist Partiyasının tarix səhnəsindən çəkilməsinə və nəticə etibarilə müttəfiq respublikaların hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxardı. Bunun ardınca yeni müstəqil dövlətlərin, eləcə də Azərbaycan Respublikasının

dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması beynəlxalq hüquq normalarının qanuni təzahürü oldu".

Həmin dövrdə həlli vacib olan məsələlərdən biri davam etməkdə olan Ermənistan-Azərbaycan müharibəsinin gedişinə təsir göstərə biləcək qəti addımlar atılması idi. Bunsuz ölkənin ərazi bütövlüyünü qorumaq, daxili ictimai sabitliyə nail olmaq mümkün deyildi. Milli Ordunun döyüş qabiliyyətinin artırılması və geniş miqyaslı müdafiə tədbirlərinin həyata keçirilməsi, döyüşçülərdə yaranan ruh yüksəkliyi sayəsində düşmənə qarşı bir neçə uğurlu hərbi əməliyyat aparıldı. Belə şəraitdə beynəlxalq qüvvələrin təsiri altında münaqişə tərəfləri atəşi dayandırmaq barədə razılığa gəldilər. Bu barədə saziş 1994-cü ilin mayında imzalandı və münaqişənin dinc vasitələrlə aradan qaldırılmasında prioritet istiqamət sayıldı. Bu illər ərzində bu istiqamətdə göstərilən səylər konkret nəticə verməsə də, atəşkəs rejimi Azərbaycanın müstəqil dövlət kimi yaşamasını və sonrakı inkişafını şərtləndirən amillərdən biri olmuşdur.

Belə bir faktı qeyd etməyə dəyər ki, Heydər Əliyevin ölkə iqtisadiyyatında köklü dəyişikliyə gətirib çıxaran və müstəqil dövlətimizə beynəlxalq nüfuz qazandıran yeni neft strategiyasının həyata keçirilməsinə məhz atəşkəsdən sonra başlanıldı və 1994-cü ilin sentyabrında dünyanın iri neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsi imzalandı.

Lakin müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsi, sosial-iqtisadi inkişafın bünövrəsinin qoyulması Azərbaycanı yenidən anarxiya və başıpozuqluq girdabına salaraq, bundan öz mənfəətləri naminə istifadə etmək istəyən daxili və xarici qüvvələrin ciddi müqaviməti ilə üzləşdirdi. 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişinə silahlı cəhdlərin göstərilməsi müstəqil dövlətçiliyimiz yolunda növbəti sınaqlar oldu. Azərbaycan Prezidenti Heydər Əliyevin qətiyyəti, xalqın öz qüdrətli liderini qızğın şəkildə dəstəkləməsi nəticəsində bu təhlükəli cəhdlərin qarşısı alındı, ölkədə hakimiyyəti zor və silah gücünə ələ keçirmək ənənəsinə birdəfəlik son qoyuldu.

1993-1995-ci illər müasir Azərbaycanın tarixinə dövlət müstəqilliyinin qorunub saxlanılması uğrunda mübarizə dövrü kimi yazılmışdır. İctimai-siyasi sabitliyin və qanunçuluğun bərqərar edilməsi bu dövrün ən mühüm nailiyyəti oldu və ümummilli liderimizə dövlət quruculuğunda, iqtisadi, sosial və mədəni həyatda böyük işlərə başlamaq, geniş miqyaslı və ardıcıl islahatlar aparmaq üçün əlverişli imkan yaratdı.

Böyük öndərimiz yaxşı bilirdi ki, demokratik dəyərlərin üstünlüyünü qəbul edən, azadlığın, haqq və ədalətin bərqərar olunduğu dövlət qurmaq istəyən hər bir ölkə, hər bir xalq üçün Konstitusiya birinci dərəcəli əhəmiyyət daşıyır. Siyasi, iqtisadi, hüquqi sistemin köklü şəkildə dəyişdiyi, cəmiyyətdə keçid dövrünün başlandığı bir vaxtda Konstitusiyanın - Əsas Qanunun rolu qat-qat artır.

Bu bir həqiqətdir ki, müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul olunması və müstəqillik tariximizdə ilk parlament seçkiləri keçirilməsi ilə Azərbaycanın tarixi inkişafının yeni bir mərhələsi başlandı. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanmış ümumxalq müzakirəsinə çıxarılan Konstitusiya layihəsi həmin il noyabrın 12-də keçirilən referendumda - ümumxalq səsverməsində qəbul edilmişdir. Bu mühüm tarixi əhəmiyyətə malik sənəd ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun möhkəm təməlini təşkil edir. Azərbaycan Respublikasının Konstitusiyasında (Əsas Qanununda) yüz illər boyu bəşəriyyətin əldə etdiyi mütərəqqi dəyərlər fundamental hüquq və azadlıqları öz əksini tapmışdır.

Ölkəmizdə müasir dövlət quruculuğunun həyata keçirilməsinin, bəşəri-demokratik dəyərlərə uyğun dövlətçilik təsisatları və cəmiyyət modeli formalaşdırılmasının hüquqi əsasları yarandıqdan sonra Azərbaycanın müstəqilliyi möhkəmləndirildi, əbədi və dönməz xarakter aldı.

1995-2003-cü illər Azərbaycanın demokratik prinsiplərə sadiq bir dövlət kimi inkişafında mühüm bir dövlət olmaqla, dünya birliyinə inteqrasiya yolunda ona çox böyük nailiyyətlər qazandırdı. Heydər Əliyevin siyasi müdrikliyi və uzaqgörənliyi, gərgin zəhməti və təşəbbüskarlığı, yaradıcı dühası və beynəlxalq nüfuzu olmadan bütün bunları əldə etmək mümkünsüz idi.

Bu illərdə Konstitusiyada təsbit olunmuş hakimiyyət bölgüsü prinsipinə uyğun dövlət idarəetmə sistemi formalaşmış, icra, qanunvericilik və məhkəmə orqanlarının səmərəli fəaliyyəti təmin edilmişdir. Ölkəmizdə müxtəlif yönlü siyasi partiyaların, ictimai təşkilatların, həmçinin, kütləvi informasiya vasitələrinin azad fəaliyyəti üçün yaradılmış şərait həqiqi memarı və qurucusu Heydər Əliyev olan müstəqil dövlətimizdə siyasi plüralizmin, fikir azadlığının, demokratiyanın bərqərar olduğunu bariz şəkildə təsdiqləyir. Ümummilli liderimiz vicdan və söz azadlıqlarının təmin edilməsini, tolerantlıq mühitinin formalaşmasını əsl vətəndaş cəmiyyətinin formalaşdırılması üçün mühüm amil sayırdı və respublikaya rəhbərliyi dövründə bu amilləri dövlət həyatının ayrılmaz hissəsinə çevirmişdir. Heydər Əliyevin bilavasitə təşkilatçılığı və rəhbərliyi ilə ölkəmizin məhkəmə-hüquq sistemi beynəlxalq standartlara uyğun şəkildə yenidən qurulmuşdur. Bu sahədə aparılan islahatlar hüquqi

dövlət quruculuğunun uğurla həyata keçirilməsi, ölkəmizdə insan hüquqlarının təmin edilməsi və qorunması üçün böyük əhəmiyyət kəsb etmişdir.

Böyük öndərimizin ölkəyə rəhbərliyi dövründə dövlət quruculuğunda, insan hüquqları və azadlıqlarının təmin edilməsi yolunda mühüm işlər görülməsi ilə yanaşı, digər istiqamətlərdə də möhtəşəm nailiyyətlər qazanılmışdır. Möhkəm maddi-texniki bazaya və yüksək döyüş qabiliyyətinə malik güclü ordunun formalaşması ümummilli lider və böyük sərkərdə kimi Heydər Əliyevin dövlətçilik fəaliyyətinin ən parlaq nəticələrindəndir. Onun gərgin diplomatik səyləri və şəxsi nüfuzu sayəsində müstəqil respublikamız bir sıra beynəlxalq təşkilatlara, o cümlədən Avropa Şurasına tamhüquqlu üzv qəbul edilmiş və öz beynəlxalq mövqeyini möhkəmləndirmişdir. Heydər Əliyevin xarici siyasəti dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu əsaslar üzərində faydalı əlaqələr qurmağa yönəlmişdi. Bu siyasət indi də uğurla davam etdirilir, öz diqqətəlayiq bəhrələrini verir.

Bu gün Azərbaycan dövlətçiliyinin ən mühüm problemi ölkənin ərazi bütövlüyünün təmin olunmasıdır. Ermənistan Respublikasının təcavüzü nəticəsində işğal altına düşmüş ərazilərimizin azad edilməsi, viran qoyulmuş kənd və şəhərlərimizin bərpa olunması, sayı bir milyona çatan və uzun müddətdən bəri məşəqqətli köçkün həyatı sürən soydaşlarımızın doğma yurd-yuvalarına qayıtması Azərbaycan dövlətinin qarşısında çox məsul bir vəzifə, ən vacib məqsəd kimi durur.

Müstəqil dövlətçiliyimizin banisi, müasir Azərbaycanın memarı, böyük öndərimiz Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyev xalqımıza hədsiz məhrumiyyətlər, müstəqil dövlətimizə böyük itkilər gətirmiş təcavüzə son qoyulması üçün çoxşaxəli və səmərəli hüquqi-diplomatik addımlar atır. Bütün bunların nəticəsidir ki, indi dünya birliyi Azərbaycanın haqlı olduğunu, Ermənistanın işğalçı və təcavüzkar siyasət yeritdiyini daha yaxşı anlayır. Heç təsadüfi deyildir ki, Avropa Şurasının Parlament Assambleyasının 2005-ci il qış sessiyasının qəbul etdiyi qətnamədə Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktı bir daha təsdiqlənmiş, onun təcavüzkarlıqdan əl çəkməsi tələb olunmuşdur.

Öz şərəfli və möhtəşəm fəaliyyəti ilə doğma vətəninin və xalqının adını əlçatmaz zirvələrə ucaltmış möhtərəm Heydər Əliyev bu gün hər birimizin qəlbində yaşayır. Azərbaycanın bugünkü və gələcək nəsillərinin Heydər Əliyevin şərəfli adı və ölməz ruhu qarşısında müqəddəs borcu onun əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışmaq, milli birliyimizə sədaqətlə xidmət göstərməkdir. Bu gün xalqımız ulu öndər Heydər Əliyevin siyasi varisi - yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar şəxsiyyət kimi dünya siyasətində özünəməxsus yer tutan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşmişdir. Tam əminliklə deyə bilərik ki, Prezident İlham Əliyev dövlətimiz qarşısında taleyüklü məsələləri, xalqımızın dəstəyi ilə başa çatdıracaq, qüdrətli şəxsiyyət Heydər Əliyevin müstəqil dövlətçilik irsini öz quruculuq fəaliyyəti ilə daha da zənginləşdirəcəkdir.

**“Xalq qəzeti”.-**2012.-4 may.-N 97.-S.3.

# AZƏRBAYCAN 2020: İNKİŞAFIN YENİ HÜDUDLARININ TƏMƏLİ HEYDƏR ƏLİYEV TƏRƏFİNDƏN QOYULMUŞDUR

**Əli ƏHMƏDOV,**
Yeni Azərbaycan Partiyasının
sədr müavini - icra katibi,
Milli Məclisin deputatı

## Gələcəyə baxış

Azərbaycanda müşahidə olunan sürətli inkişafın əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Bu inkişaf ölkə həyatının ən müxtəlif sahələrində kəmiyyət göstəricilərinin dəyişməsində ifadə olunur. Doğrudur, hər bir inkişaf ilk öncə məhz kəmiyyət dəyişikliklərinə səbəb olur. Bu, inkişaf adlandırılan ictimai hadisənin əsas əlaməti sayılır. İqtisadi göstəricilər artmadan iqtisadi inkişafdan, rifah göstəriciləri artmadan rifahın yüksəlməsindən və s. danışmaq mümkün deyil. Bu mənada Azərbaycanın inkişafı fenomeni də hər şeydən əvvəl statistikada özünü göstərməkdədir və müəyyən mənada bunu inkişafın özünütəsdiqi kimi qiymətləndirmək olar.

Azərbaycan nümunəsində diqqəti cəlb edən digər cəhət haqqında da söhbət açıla bilər. Bunu mən inkişafın hiperdinamikası adlandırardım. Azərbaycanda iqtisadi və digər sahələrdə inkişafın məhz belə parametrlərə malik olduğunu sübuta yetirən kifayət qədər təsirli faktlar mövcuddur. Yalnız bir neçə misalla irəliyə sürülən iddianın həqiqiliyi öz təsdiqini tapa bilər. Düşünürəm ki, son 8 il ərzində Azərbaycanın iqtisadiyyatının 3 dəfə, dövlət büdcəsinin 16 dəfə, investisiya xərclərinin 10 dəfələrlə, maaşlar və pensiyaların bir neçə dəfə artması faktlarını sadalamaq tamamilə yetərlidir.

Azərbaycanın XXI əsrin birinci onilliyinə təsadüf edən inkişaf mərhələsinin fərqləndirici cəhəti ondan ibarətdir ki, bu inkişaf, dünyanın əksər inkişaf edən ölkələrinin nümunəsindən fərqli olaraq, faizlərlə deyil, dəfələrlə ölçülür. Əlbəttə, inkişafın böyük sürəti iqtisadi göstəriciləri kəskin şəkildə yüksəltməklə yanaşı, həyatın digər sahələrində də ciddi dəyişikliklərin əsaslarını yaratmaya bilməzdi.

Mənim bu məqamda xüsusi olaraq vurğulamaq istədiyim dəyişklik meylləri həyat standartları sferasını əhatə edir. Haqqında söhbət açdığımız sürətli iqtisadi artım fonunda qeyri-adi sosial inkişaf müşahidə olunmaqdadır. Bunun ən bariz ifadəsini, ilk növbədə, yoxsulluq dərəcəsinin təxminən 7 dəfə, başqa sözlə 49 faizdən 7 faizə qədər azalmasında görmək mümkündür. Təbii ki, bu, maaşların, pensiyaların, əhalinin gəlirlərinin artımının xüsusilə yüksək dinamikasından irəli gəlir. Lakin son illərin sosial sferaya aid olan gerçəkliyi təkcə sadalanan rəqəmlərdən ibarət deyil. Daha əhəmiyyətli məqam həyatın səviyyəsi ilə yanaşı, həyat keyfiyyətinin dəyişməsidir. Artıq qəti şəkildə Azərbaycanda həyatın yeni standartlarının meydana gəldiyini qeyd etmək olar və hətta bunu qeyd etmək zəruridir. Zəruridir ona görə ki, haqqında söhbət açdığımız standartlar təkcə əldə olunan nailiyyət kimi əhəmiyyət kəsb etmir, həm də gələcək fəaliyyətlə bağlı yeni vəzifələr irəli sürür.

Ulu öndər Heydər Əliyev siyasi strategiyasının təzahürü nəticəsində inkişafın yüksək dinamikasının yaratdığı yeni həyat standartları, əvvəla insanların öz həyatına, həyatın mənasına yeni baxışlarını və onlara uyğun yeni tələbatları sistemini formalaşdırır, digər tərəfdən isə, sosial siyasətin artıq yeni dövrün xüsusiyyətlərinə uyğunlaşması gərəkliyi meydana çıxmış olur. Bir növ, klassik siyasi iqtisadi fundamental qanunlarından olan, ödənilmiş tələbatların yeni tələbatlar meydana gətirməsi gerçəkliyi müasir Azərbaycanın timsalında özünü qabarıq şəkildə göstərməyə başlayır. Vətəndaşın sosial subyekt kimi özünü yenidən dərk etməsi prosesi baş verir. Cəmi bir neçə il bundan əvvəl özünü kasıb bir dövlətin vətəndaşı sayan insan artıq sürətli inkişaf, qlobal yeniləşmə və modernləşmə, əzəmətli infrastruktur layihələri fonunda həyatını fərqli meyarlar vasitəsi ilə dəyərləndirir. Başqa sözlə, dəyərləndirmə meyarı olaraq təkcə insanın şəxsi imkanları deyil, həm də, bəzən isə hətta daha çox, formalaşmış yeni həyat standartları çıxış edir ki, bunun özü də sosial siyasətin qarşısında tamamilə yeni vəzifələr qoyur.

Fərdin həyatının yenidən qiymətləndirilməsi mexanizminin Azərbaycanda qəti şəkildə işə düşməsi, heç şübhəsiz, ölkənin inkişafının ən mühüm nailiyyəti sayılmaq haqqına sahibdir. Bu ondan xəbər verir ki, vətəndaşların yeni nəsli meydana gəlməkdədir və bu nəsil həm vətəndaş məsuliyyətinə, həm də həyatda öz yerinə, həyatının mənasına tam fərqli meyarlarla yanaşır. Beləliklə, həyat standartlarının dəyişməsi prosesi baş verir, həyatın dəyərləndirilməsi zamanı həyat səviyyəsi ilə yanaşı həyatın keyfiyyəti anlayışı da dəyərləndirici meyar rolunda çıxış edir. "İşləmək və yaşamaq" həyat modeli ardıcıl olaraq "rahat yaşamaq, mənalı işləmək" modeli ilə əvəzlənir.

Azərbaycanın gələcək inkişaf perspektivlərinə ciddi təsir göstərmək qüdrətində olan reallıqları sırasında demoqrafik dəyişikliklərinin mühüm rol oynadığını ayrıca qeyd etməyə dəyər. Hesab edirəm ki, demoqrafik

dəyişiklikləri, sadəcə, əhali artımı kimi qiymətləndirmək düzgün olmazdı. Onun mənası, xüsusilə də sosial-iqtisadi proseslərə təsiri imkanları daha geniş və çoxşaxəlidir. Demoqrafik inkişafın böyük tempini nəzərə alsaq, onun gələcək inkişaf konsepsiyasında nə qədər əhəmiyyətli rol oynadığını başa düşmək çətin deyil.

Son iyirmi il ərzində Azərbaycan əhalisi 2 milyon nəfər artaraq 9 milyondan artıq olub. Bu, əhalinin 30 faiz artımı deməkdir. Deməli, hər 10 ildə əhali təxminən 15 faiz, ildə isə, 1,2-1,3 faiz artmışdır. Əgər bu meyl saxlanılarsa, 2020-ci ildə əhalinin 10 milyonluq həddi aşacağı şübhəsizdir.

Əlbəttə, Azərbaycanda sürətli sosial-iqtisadi yüksəliş fonunda əhalinin məlum artım dinamikası fərqli rəqəmlərlə ifadə olunur. Elə bunun sayəsidir ki, iqtisadi artım əhali artımını dəfələrlə qabaqlayır. Məsələn, son 10 ildə əhali cəmisi 15 faiz artdığı halda, iqtisadi artım 3 dəfə təşkil edib. Fərq təxminən 13 dəfəyə bərabərdir ki, bu da sosial və iqtisadi həyatın strukturunda yuxarıda qeyd etdiyimiz müsbət meyllərin əsasını təşkil etmişdir.

Lakin müqayisəli şəkildə deyil, mütləq artım baxımından yanaşdıqda, həm son 20, həm də 10 ilin demoqrafik inkişafı kifayət qədər ciddi rəqəmlərlə ifadə olunur ki, sonuncunun nəticəsi təkcə əhalinin demoqrafik strukturuna deyil, habelə sosial və iqtisadi strukturuna əhəmiyyətli təsir etmək gücünə malikdir.

Yüksək demoqrafik dinamika əhalinin tərkibində bir sıra struktur dəyişikliklərini şərtləndirir. Bunlardan ikisi ayrıca qeyd olunmağa layiqdir. Birincisi, əhalinin tərkibində gənclərin xüsusi çəkisi artır. Müxtəlif hesablamalara görə 35 yaşına qədər vətəndaşlar əhalinin 60 faizdən çoxunu təşkil edir. İkincisi isə, əhali artımının sürəti kənd yerlərində daha yüksək olduğundan, kənddən şəhərə axının ciddi rəqəmlərlə ifadə olunmasına baxmayaraq, kənd və şəhər əhalisinin nisbətində o qədər də kəskin fərq müşahidə olunmur. Bu günə qədər ölkə əhalisinin təxminən 45 faizi kənddə yaşayır. Müvafiq surətdə, urbanizasiya problemi tam həll edilməmiş qalır ki, bunun da mühüm, həm sosial, həm iqtisadi, həm də mədəni aspektləri mövcuddur.

Beləliklə, səthi şəkildə olsa da, nəzərdən keçirilən reallıqlar 2020-ci ilə hədəflənmiş inkişaf konsepsiyasının başlıca qayəsini başa düşməkdə, həyata keçirilməsi vacib olan islahatların istiqamətlərini müəyyənləşdirməkdə zəruri açar rolunu oynaya bilər.

Hər şeydən əvvəl, 2020-ci ilə yönəlmiş islahatların əsas məqsədini aydın şəkildə ifadə etməyə çalışaq. Aparılan dəyərləndirmələrin ortaya qoyduğu reallıq ondan xəbər verir ki, içində yaşadığımız onilliyin başlıca məqsədi iqtisadi inkişafın davamlılığının təmin edilməsi əsasında yeni standartlara uyğun rifaha və həyat keyfiyyətinə nail olması sayıla bilər. Bu məqsəd hər şeydən əvvəl Azərbaycan dövlətinin konstitusion öhdəliklərindən, ideoloji baxışlarından ümummilli lider Heydər Əliyevin daxili və xarici siyasətinin uğurlu davamından və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin mahiyyətindən irəli gəlir.

"Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasının hazırlanması zərurəti məhz bu həqiqətin dərk edilməsindən və dəyərlənməsindən qaynaqlanır. Sözügedən konsepsiyanın hazırlanması ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamda qeyd edilir: "Hazırda Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu mərhələnin əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşması, sosial sahədə öncələyici inkişaf trendinin təmin olunması və əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır".

### Yeni Azərbaycanın yeni hədəfləri: bəzi istiqamətlər

Azərbaycanın dövlət məfkurəsinin başlıca məqsədinin insan olması sübuta ehtiyac duyulmayan reallıq kimi qavranılmaqdadır. İnsan, onun həyatı, rifahı o ali kateqoriyalardandır ki, onlar Azərbaycan dövlətinin ən yüksək dəyərləri olaraq qəbul olunur. Bu səbəbdən ölkəmizdə dövlət siyasəti əhalinin yüksək rifahının təmin edilməsi kimi ali məqsədin reallaşmasına yönəldilmişdir.

Müstəqil dövlətçilik praktikasının 20 ili ərzində, məhz ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra Azərbaycanda insan rifahının təmin edilməsi istiqamətində əhəmiyyətli işlərin görüldüyü göz önündədir. Iqtisadi islahatlar, sahibkarlığın inkişafı, təşəbbüskarlığa geniş meydan verilməsi bir yandan, dövlətin sosial siyasətinin yaratdığı imkanlar isə, digər yandan insanların rifahının əhəmiyyətli dərəcədə yüksəldilməsini mümkün etmişdir. Xüsusilə də Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi nəticəsində ölkəyə daxil olan böyük neft vəsaitlərinin ağıllı istifadəsi özünün mühüm təsdiqini təsirli sosial siyasətdə, insanların həyat səviyyəsinin yüksəlməsinə yönəlmiş dövlət layihələrində tapır. Rifah sahəsində əldə olunan nəticələrin xüsusi mənası və dərəcəsi yüksəlişin faizlə deyil, dəfələrlə olmasında ifadə olunur. Adambaşına düşən ümumi daxili məhsulun bir neçə dəfə artması, dövlət sektorunda maaşların və pensiyaların dəfələrlə hiss olunan dərəcədə yüksəldilməsi, vətəndaşların bütünlükdə real gəlirlərinin çoxalması sosial rifah

sahəsində ümumi mənzərənin köklü surətdə dəyişməsini təmin etmişdir. Deyilənin bariz ifadəsi əhalinin istehlakının dinamikasında özünü əyani şəkildə biruzə verməkdədir.

Beləliklə, müdrik siyasi xadim Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində Azərbaycanın nail olduğu iqtisadi göstəricilər ona XXI əsrin ikinci onilliyini iqtisadi cəhətdən inkişaf etmiş ölkə kimi başa vurmağa real imkan yaradır. Hesab edirəm ki, ən ümumi hədəf olaraq bu, növbəti onilliyin başlıca vəzifəsi sayılmalıdır. Qarşıya belə bir vəzifənin qoyulması təbii olaraq sosial inkişaf sahəsində dəqiq hədəfləri müəyyənləşdirməyə yardım edir.

Qeyd edildiyi kimi, Azərbaycan cəmiyyətinin sosial rifah sahəsindəki mənzərəsi onun inkişaf etmiş cəmiyyətlərə əhəmiyyətli dərəcədə yaxınlaşmasından xəbər verir. Deməli, yaşadığımız onilliyin bu sahədə əsas hədəfi inkişaf etmiş ölkələr səviyyəsinə çatmaqdan, sosial rifah cəmiyyəti qurmaqdan ibarət olmalıdır.

İnkişaf etmiş ölkələrin sosial cəmiyyət modeli uzun illər ciddi siyasi və elmi müzakirələrin predmeti olmuş və bu gün də olmaqdadır. Əsas etibarı ilə inkişaf etmiş cəmiyyətlərin sosial modeli kimi qəbul olmuş istehlak cəmiyyəti son illərin iqtisadi böhranlarının təsiri altında ciddi sarsıntılara məruz qalmaqdadır. Növbəti illərdə istehlak cəmiyyəti anlayışının əsaslı surətdə elmi və siyasi dairələrin təftişinə məruz qalacağı şübhəsizdir. Bir sıra hallarda əsassız istehlakçı sosial həyat modelinin indiki iqtisadi böhranlara səbəb olması və nəticə etibarı ilə bəzi ölkələrdə sosial gərginliklərə və qarşıdurmalara gətirib çıxarması sübuta yetirilməkdədir.

Düşünürəm ki, Azərbaycanın sosial cəmiyyət modeli formalaşdırılarkən, istehlak cəmiyyəti konsepsiyasının həm üstünlükləri, həm də üzə çıxan ziddiyyətləri nəzərə alınaraq daha mütərəqqi modelin hazırlanmasına cəhd göstərilməlidir. Bu zaman, birincisi, insanın layiqli həyatının təmin edilməsi üçün zəruri şəraitin yaradılması, ikincisi isə, iqtisadi faktor mütləq şəkildə nəzərə alınmalıdır ki, müəyyən mərhələdən sonra hazırda bəzi ölkələrin üzləşdiyi ziddiyyətlər üzə çıxmasın və nəticə etibarı ilə sosial sahədə "kəmərsıxma" tədbirlərinə əl atmağa ehtiyac qalmasın. Belə bir model kimi "rifah cəmiyyəti" anlayışından istifadə olunması təklif edilə bilər.

"İstehlak cəmiyyəti" ilə "rifah cəmiyyəti" arasında fərqi hər şeydən əvvəl sonuncunun daha etibarlı dəyərlərə və iqtisadi qanunlara söykənməsində görmək mümkündür. "Rifah cəmiyyəti" də "istehlak cəmiyyəti" kimi insanı, onun sağlam tələbatlarını və maraqlarını cəmiyyətin ali məqsədi sayır, bütün resurslar və səylər ilk növbədə onların ödənilməsinə yönəlir. Fərq isə ondan ibarətdir ki, bu məqsədlərə çatmaq iqtisadi qanunlardan və imkanlardan ayrılıqda təsəvvür edilmir, deməli yüksək rifahın təmin edilməsi qəti şəkildə iqtisadi inkişafa və real imkanlara bağlanılmış olur.

Bu mənada "rifah cəmiyyəti" anlayışı bir-biri ilə sıx bağlı olan, qarşılıqlı münasibətləri səbəb-nəticə əlaqələri ilə təyin edilən iki qütbə sahibdir. Birinci qütb insan, onun dərk edilmiş tələbatları və maraqlarını ehtiva edən rifah, ikinci qütb isə iqtisadi qanunauyğunluqlar və imkanlar sistemi şəkilində qavranılır. "Rifah" sosial hadisəsi stimulverici səbəb kimi iqtisadi imkanların yaradılması üçün fəaliyyəti təmin edir, yaradılmış iqtisadi imkanlar isə rifahın reallaşmasının real əsası rolunu oynayır. Iqtisadi imkanlarsız real rifahın təmin edilməsi mümkün olmadığı kimi, insanın rifahına xidmət göstərməyən iqtisadiyyat da hər cür sağlam məntiqdən və dərk edilmiş ictimai mənadan məhrumdur.

"Rifah cəmiyyəti" mücərrəd anlayış olmayıb, real parametrlərə sahib olması ilə seçilməlidir. Onun reallaşması uğurları hər şeydən əvvəl həmin parametrlərin dəqiq müəyyən edilməsindən və düşünülmüş xarakter kəsb etməsindən asılıdır.

Rifah cəmiyyətinin əsas qayəsi insanın layiqli həyatının təmin edilməsindən ibarət olduğundan, təbii ki, sözügedən konsepsiya çərçivəsində "layiqli həyat" anlayışı da öz təsvirini tapmalıdır. Düşünürəm ki, izahı çox vacib olan bir məsələyə də toxunulmasına gərək var. Bu da belə bir suala cavab axtarılmasından ibarətdir ki, dövlət rifah cəmiyyətinə xas olan "layiqli həyat"ın təmin edilməsində hansı rolu oynamalıdır. Dövlətin hər şeyi öz üzərinə götürüb yerinə yetirə bilmədiyi sosializm və ya sovet sistemindən fərqli olaraq, müasir Azərbaycan cəmiyyətində dövlət insanın bütün həyatını tənzimləmək və bütün təlabatlarını ödəmək rolunu öz üzərinə götürmür. Əksinə, bu cəmiyyətdə daha çox liberal dəyərlərə istinad edilərək insanın sərbəstliyinə və təşəbbüskarlığına meydan açılır.

Əlbəttə, irəli sürülən tezis heç də dövlətin "rifah cəmiyyəti"ndə rolunu heçə endirmək məqsədi güdmür. Bu, həm də ona görə mümkün deyil ki, əvvəla, Azərbaycan Respublikasının Konstitusiyası dövlətin üzərinə mühüm sosial vəzifələr qoyub, ikincisi isə, Azərbaycan hökumətinin həyata keçirdiyi sosial siyasət geniş əhatəsi və ciddi layihələri ilə insanların rifahının təmin edilməsində əhəmiyyətli rol oynayır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin islahatların, o cümlədən siyasi islahatların daha da dərinləşdirilməsi haqqında bəyanatları, məhz bunları nəzərdə tutur və hesab edirəm ki, yaşadığımız onilliyin islahatlar paketində qeyd olunanlar əhəmiyyətli yer tutacaq.

Beləliklə, rifah cəmiyyətinin qurulması üçün ilkin şərtlərin yaradılması məsələsinə aydınlıq gətirilməsi zamanı çatdı. Yəqin ki, ən əsas şərtin müxtəlif mənbələr və iqtisadiyyatın bir çox sahələrinin sürətli ahəngdar

inkişafı hesabına adambaşına ümumi daxili məhsulun iki dəfə artırılması hesab olunmalıdır. İlkin mənbə kimi karbohidrogen ehtiyatlarından əldə edilən gəlirlər nəzərdən keçirilə bilər. Lakin ÜDM-nin təxminən 100 milyard ABŞ dolları həddinə çatdırılmasında bu mənbə yetərli deyil, digər tərəfdən isə nəzərə almaq lazımdır ki, bu gəlirlər dünya enerji bazarında konyukturadan asılı olaraq yüksək qeyri-sabitliyini qoruyub saxlayır.

İkinci mühüm mənbə qismində iqtisadiyyatın modernləşməsi, yəni müasir istehsal sahələrinin yaradılması nəzərdən keçirilə bilər. Bu, Azərbaycanda iqtisadi islahatların yeni mərhələsini nəzərdə tutur ki, sonuncunun ən vacib nəticələrindən biri iqtisadiyyatın əhəmiyyətli struktur dəyişiklikləri olacaqdır. Hazırda Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar, xüsusilə də dünyanın aparıcı iqtisadi qurumları tərəfindən Azərbaycanın dərin iqtisadi islahatların həyata keçirdiyi ölkə kimi tanınması sözügedən prosesin aktiv fazada olmasından xəbər verir.

Doğrudur, son illərdə Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanda təxminən 1 milyon yeni iş yerlərinin açılması vəziyyəti ciddi şəkildə dəyişdirmişdir. 7-8 il bundan əvvəlki dövrlə müqayisədə indi ÜDM-də payı olan vətəndaşların sayı xeyli artmış, iqtisadiyyatın və ÜDM-nin strukturunda əhəmiyyətli dəyişiklik baş vermişdir. Bununla belə bu sahədə istifadə olunmamış imkanlar, yuxarıda qeyd edildiyi kimi, yetərincədir.

Əvvəl ondan başlayaq ki, Azərbaycanın əhalisi, artıq qeyd etdiyimiz kimi, sürətlə artır. Bu günün qeyd edilən meyli ondan ibarətdir ki, hər 10 ildə əhali təxminən 1 milyon nəfər artır. Deməli, Azərbaycanın əmək resursları sferasında hər 10 ildə 1 milyon nəfər artım müşahidə olunur. Başqa sözlə desək, resursların illik artımı 100 min nəfərə bərabərdir. Buradan belə bir mühüm nəticə çıxır ki, ildə təxminən 100 min, 10 il ərzində isə 1 milyona yaxın iş yerlərinin açılması sosial-iqtisadi inkişaf strategiyasının qaçılmaz tələbidir. Həmin tələbin yerinə yetirilməməsi bir yandan izafi iş qüvvəsinin meydana gəlməsinə səbəb olacaq, digər tərəfdən isə işçi qüvvəsinin tam şəkildə milli dəyərin yaradılması prosesində iştirakı təmin edilməmiş qalacaq.

Azərbaycanda əhalinin təxminən 45 faizi kənd yerlərində yaşayır. Sovet təssərrüfat ukladının sındırılması ilə kənd yerlərində həm iqtisadiyyatda, həm də əmək resurslarından istifadə olunmasında ciddi struktur dəyişiklikləri baş vermişdir. Kənd yerlərində ictimai əməyə cəlb edilməmiş əmək resursları şəhərlərə nisbətdə daha çoxdur və bu fərq artmağa meyillidir. Əsas iki səbəbi göstərilə bilər: a) kənddə iqtisadiyyatın struktur dəyişiklikləri nəticəsində izafi iş qüvvəsinin meydana gəlməsi; b) kənd yerlərində əhali artımı tempinin daha yüksək olması. Nəticədə, kənd özünün mövcud istehsal imkanları ilə kəndin bütün əmək resurslarından səmərəli istifadə olunmasını qeyri-mümkün edir. Kənddən şəhərə əhali axını obyektiv zərurətə çevrilir. Azərbaycanda bu proses hazırda kənd əhalisinin müəyyən hissəsinin, xüsusilə də gənclərin, əsas etibarı ilə Bakıya köçməsi şəklində baş verir. Az sayda xaricə miqrasiya da müşahidə olunmaqdadır. Lakin sonuncu az-çox əhəmiyyəti olan problem kimi qeydə alınmır. Əsas problem kənddən Bakıya istiqamətlənən miqrasiya sayılır və etiraf olunmalıdır ki, onun getdikcə geniş miqyas alması elmi və siyasi dairələrdə intensiv müzakirələrə səbəb olur. Əksər hallarda isə tənzimləyici tədbir kimi əhalinin kənddə qalmasını stimullaşdıran addımların atılması tövsiyyə edir.

Beləliklə, kənddən şəhərə müşahidə olunan miqrasiya meyli ən azından qarşıdakı onillik ərzində saxlanılacaq. Bu isə öz növbəsində yeni iş yerlərinin yaradılması prosesinin strukturunda zəruri dəqiqləşdirilmələrin aparılmasın şərtləndirir. Nəticə: a) şəhər yerlərində iş yerləri daha intensiv şəkildə açılmalıdır; b) Bakı şəhərinin sıxlaşmasının qarşısının alınması üçün yeni iş yerlərinin əsas ağırlığı digər şəhərlərin üzərinə köçürülməlidir; c) bütün ölkə üzrə iqtisadi inkişafın tarazılığını və əmək resurslarından daha səmərəli istifadə edilməsini təmin etmək üçün bütün bölgələri əhatə edən regional iqtisadi mərkəzlərin yaradılmasını nəzərdə tutan məskunlaşma konsepsiyası hazırlanmalıdır. Bu konsepsiya, heç şübhəsiz 2020-ci ilə ünvanlanmış inkişaf strategiyasının əsas tərkib hissələrindən biri olmaq haqqına sahibdir.

Nəhayət, yaşadığımız onilliyin əsas hədəfləri içərisində önəmli yer tutan təhsilə diqqət yetirək. Ulu öndər Heydər Əliyevin Azərbaycana yenidən rəhbərliyi dövründə elm və təhsilin inkişafına xüsusi önəm verməsi nəticəsində təhsil müasir cəmiyyətin mühüm mənəvi və iqtisadi potensialı, tükənməyən, əksinə daim artan maddi resursuna çevrilib. Bir universitet təhsilli insanın milli dəyər yaratmaq əmsalı, unversitet təhsili olmayan vətəndaşın eyni əmsalından xeyli yüksəkdir. İstehsalın müasirləşməsi, ictimai ahəngdarlığın təmin edilməsi və bu kimi müsbət məqamlar da nəzərə alınsa, təhsilin cəmiyyətin həyatında müstəsna rolunu başa düşmək çətin deyil. Bu baxımdan, təhsilin inkişafı, əhalinin təhsil səviyyəsinin yüksəldilməsi ölkənin iqtisadi potensialının artmasının ən perspektivli sahələrindən sayılmalıdır.

Qeyd edilməlidir ki, bu sahədə istifadə olunmamış böyük imkanlar mövcüddür. Azərbaycanda məktəbi bitirən gənclərin təxminən 25-30 faizi universitet təhsilinə cəlb oluna bilir. 2020-ci ilə ünvanlanmış inkişaf konsepsiyası çərçivəsində ona nail olunmalıdır ki, gənclərin universitet təhsilinə cəlb olunmaq dərəcəsi 45-50 faizə çatdırılsın, yüksək təhsil və mədəniyyət Azərbaycan cəmiyyətinin mövcud mənzərəsinin ayrılmaz ünsürü kimi özünə möhkəm yer tutmaqla, onun inkişafına əhəmiyyətli tövfəsini verə bilsin.

Heydər Əliyevin memarı olduğu yeni Azərbaycan müstəqilliyinin 20 ili ərzində böyük inkişaf mərhələsini yaşayaraq növbəti onillikdə daha əzəmətli yüksəlişə hazırlaşır. Bu yüksəlişə onu istinad etdiyi dəyərlər və siyasətə xalqın dərindən inamı və dəstəyi səfərbər edir. Şübhə yoxdur ki, indiyədək qarşısına qoyduğu bütün əzəmətli vəzifələrin öhdəsindən layiqincə gələn Azərbaycan cəmiyyəti növbəti hədəflərə doğru irəliləyişində zəruri nailiyyətləri qazana biləcək. 2020-ci ilin Azərbaycanında yaşamaq daha rahat, işləmək daha mənalı olacaq. Azərbaycan xəyalların gercəkləşdiyi ölkələr sırasında özünə layiqli yer tutacaq.

**"Xalq qəzeti".-**2012.-5 may.-N 98.-S.3.

# HEYDƏR ƏLİYEVİN ŞAH ƏSƏRİ - MÜSTƏQİL AZƏRBAYCAN

**Rza TALIBOV,**
Bakı Dövlət Universitetinin müəllimi,
siyasi elmlər üzrə fəlsəfə doktoru

**Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev bəşəriyyətin yetirdiyi dahi şəxsiyyətlərdəndir. Müasir Azərbaycan dövlətinin ötən illər ərzində ictimai-siyasi, sosial-iqtisadi, eləcə də mədəni həyatının bütün sahə və istiqamətləri üzrə dirçəlişi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz bu illərdə Heydər Əliyev xalqımızı tarixin ağır və sərt sınaqlarından uğurla çıxarmış, müasir Azərbaycanın etibarlı bünövrəsini yaratmışdır.**

Ensiklopedik biliyə, güclü iradəyə və milli ruha malik olan Heydər Əliyev Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə həmişə öz xalqının yanında olmuşdur. Azərbaycanın həqiqi müstəqilliyi, intibahı məhz Heydər Əliyevin çoxşaxəli fəaliyyəti ilə bağlıdır. Bu, sözün əsl mənasında, "Ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" deyib, şərəfli bir missiyanı üzərinə götürən ulu öndərin öz xalqı, vətəni qarşısında misilsiz fədakarlığı idi. Ulu öndər həmişə Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənib, arxalanıb. Tarix sübut etdi ki, dünya şöhrətli dövlət xadimi Heydər Əliyevin güvəndiyi, arxalandığı bu yenilməz qüvvə qarşıya çıxan neçə-neçə qorxunc təhlükəni sovuşdurmağa, keçilməz maneələri belə dəf etməyə həqiqətən də qadirdir. Məhz xalqın öz dahi lideri ilə birliyi, həmrəyliyi sayəsində müstəqilliyimiz əbədi prosesə çevrildi və ölkəmiz davamlı inkişaf yoluna çıxdı.

Azərbaycanın müasir tarixinin ən parlaq siması, qüdrətli şəxsiyyəti Heydər Əliyevin mənalı həyat yolu və fəaliyyəti tarixin sınağından şərəflə çıxmış bütöv bir idarəçilik məktəbidir. Milli özünüdərkin ən yüksək siyasi ifadəsi olan müstəqil dövlət ideyası Azərbaycanın ən yeni tarixində məhz Heydər Əliyev şəxsiyyətindən qaynaqlanır. Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin milli maraqlarını hər şeydən uca tutan, onu ümumi məqsədlər naminə səfərbər etməyi bacaran lider, dahi rəhbər idi.

Ulu öndər Heydər Əliyevin 1969-cu il iyulun 14-də Azərbaycanda hakimiyyətə gəldiyi gün həyatımızın olduqca mühüm tarixi hadisəsi kimi yaddaşlarda əbədi qalıb. Bu tarix dövlətçilik tariximizdə dinamik, hərtərəfli inkişaf və intibah mərhələsinin başlanğıcını qoyub. 1969-cu ildə respublikamıza rəhbərliyinin elə ilk günlərindən Heydər Əliyevin Azərbaycan dövlətinin və xalqının inkişafı istiqamətində gələcək fəaliyyətinin, atacağı addımların konturları aydın idi. Ulu öndərin rəhbərliyi illərində həyata keçirilən işlər Azərbaycanda böyük sosial-iqtisadi, elmi və ədəbi-mədəni inkişafa, müstəqil düşüncəyə yol açdı. Qısa zaman kəsiyində Azərbaycan ittifaqın tərkibində o zaman üçün müasir iqtisadi potensiala malik olan, daim inkişaf edən respublikaya çevrildi. Məhz Heydər Əliyevin böyük səyi və qətiyyəti sayəsində həmin dövrdə ittifaq hökuməti Azərbaycanda xalq təsərrüfatının hərtərəfli yüksəlişini və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərar qəbul etmişdir. Xalqımız üçün böyük tarixi əhəmiyyət daşıyan bu mühüm qərarlar 70-80-ci illərdə və daha sonrakı perspektivdə ölkəmizin sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə kompleks məsələləri müəyyənləşdirmişdir. Həyata keçirilən qlobal miqyaslı işlər sayəsində 1976-1980-ci illərdə Azərbaycan artıq sənayedə məhsul istehsalının artımına görə SSRİ-də birinci yerə çıxmışdı. XX əsrin 70-80-ci illəri Azərbaycan tarixinə, sözün əsl mənasında, intibah dövrü kimi daxil olmuşdur.

Ulu öndərin rəhbərliyi altında başlanan genişmiqyaslı işlərin nəticəsində Azərbaycan ittifaq respublikaları arasında ən qabaqcıl yerlərdə idi. Müstəqil Azərbaycanın sosial-iqtisadi bünövrəsi məhz Heydər Əliyevin sayəsində ötən əsrin 70-80-ci illərində qoyuldu və ölkəmizin gələcəyi üçün möhkəm təməl yaradıldı. Yalnız sosial-iqtisadi yüksəliş deyil, o dövrdə milli-mənəvi dəyərlərə qayıdış da Heydər Əliyevin misilsiz xidmətlərindəndir.

Heydər Əliyevin fəaliyyəti dövründə əsas diqqət yetirdiyi sahələrdən biri də məhz Azərbaycanda dövlət dili siyasəti idi. 1978-ci ildə Azərbaycan SSR-in konstitusiya layihəsi qəbul edilərkən ulu öndərin Azərbaycan dilinin bu ali sənəddə dövlət dili kimi təsbitlənməsi və qorunub saxlanılması istiqamətində nümayiş etdirdiyi rəşadəti xatırlatmaq kifayətdir. Bu mənada Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövrünü Azərbaycanın milli intibah dövrü kimi də səciyyələndirmək olar. Bu böyük şəxsiyyət sovet ideologiyasının bütün maneələrini adlayaraq Azərbaycanın milli inkişaf konsepsiyasını önə çəkdi, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişlərə ruhlandırmağı bacardı. Ulu öndər Heydər Əliyev Azərbaycanın müstəqil dövlət olacağını qabaqcadan hiss edərək, buna lazımi zəmin formalaşdırmaq üçün əzmkarlıq və uzaqgörənliklə fəaliyyət göstərirdi. Ulu öndərimizin respublika rəhbərliyinə gəlişi ilə başlanmış vüsətli tərəqqi ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatımızda köklü dəyişikliklərlə müşayiət olunmuş, xalqımızın adət-ənənələrinin

daha da zənginləşməsinə, milli mənlik şüurunun yüksəlişinə təkan vermişdir. Heydər Əliyevin milli intibahı təmin edən sürətli inkişaf strategiyası Azərbaycanı hələ 1969-1982-ci illərdə əsl təşəbbüskarlıq, quruculuq, yaradıcılıq meydanına çevirmiş, onu keçmiş ittifaq dövlətinin ən qabaqcıl, iqtisadi cəhətdən müstəqil yaşamaq imkanına malik iki respublikasından biri kimi tanıtdırmışdır.

Heydər Əliyevin 1982-ci ildə Siyasi Büronun üzvü seçilməsinin və SSRİ kimi nəhəng dövlətin ali rəhbərliyində təmsil olunmasının milli qürur və iftixar hissi yaradan amil kimi mühüm rolunu da xüsusi vurğulamaq vacibdir. Xalqın liderinin onun hüdudlarından kənarda tanınması və etiraf olunması qədər milli düşüncəyə yüksək səviyyədə müsbət təsir göstərən digər amil təsəvvür etmək çətindir. Ümummilli lider Heydər Əliyevin dünyanın iki superdövlətindən birinin rəhbərlərindən olması həm də xalqımızın bəşəri miqyasda tanınması, onun gələcəyinə hesablanan gerçəkliyin dərk olunması idi. Odur ki, tam əminliklə söyləmək mümkündür ki, Heydər Əliyevin XX əsrin son onilliklərində Azərbaycanın intibahı yolundakı xidmətləri, digər tərəfdən isə milli lider kimi birmənalı olaraq bütün xalq tərəfindən qəbul edilməsi milli azadlıq məfkurəsinin yeni mərhələdə formalaşmasında həlledici rol oynamış oldu.

Azərbaycanın dirçəlişi, müstəqillik yolu məhz xalqımızın böyük və fədakar oğlu Heydər Əliyevin 1990-cı ildə Naxçıvana gəlişi, o dövrdə çox ağır sınaqlarla təkbaşına qalan, demək olar ki, taleyin ümidinə buraxılan muxtar respublikadakı fəaliyyəti ilə başlayıb. Təəssüf ki, həmin dövrdə Azərbaycana rəhbərlik edən səriştəsiz iqtidarlar Heydər Əliyevin simasında özlərinə güclü siyasi rəqib görərək bu dahi şəxsiyyətin dövlətçilik təcrübəsindən Azərbaycan xalqının rifahı naminə istifadə etməyə qorxdu. Naxçıvana qayıdan Heydər Əliyevi əhali böyük sevinc və ümidlə qarşıladı. Ötən əsrin doxsanıncı illərinin əvvəllərində Naxçıvan Muxtar Respublikası olduqca gərgin bir dövr yaşayırdı. Bu dövrdə Qarabağ problemi ətrafında yayılan dalğanın zərbə qüvvəsinə məruz qalan Naxçıvan taleyin ümidinə buraxılmışdı. Azərbaycanla nəqliyyat əlaqələri kəsiləndən sonra iqtisadi və siyasi böhran içində boğulan, erməni təcavüzü qarşısında əliyalın və köməksiz vəziyyətdə qoyulan Naxçıvanı yalnız Heydər Əliyev müdrikliyi və qüdrəti bütün bəlalardan, işğal olunmaq, əhalisini isə qaçqın ömrü yaşamaq təhlükəsindən hifz edib qoruya bilərdi və belə də oldu.

Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində özünə parlaq iz qoymuş bu dahi şəxsiyyətin Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. Bu dövrdə Naxçıvan Muxtar Respublikasının həyatında mühüm dəyişikliklər bas vermis, Ermənistanla həmsərhəd rayon və kəndlərdə hərbi təcavüzə son qoyulmuş, əhalidə əmin- amanlıq yaranmıs, siyasi tarazlığın pozulmasına yönəldilən cəhdlərin qarşısı alınmışdır. Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü dövlətçilik təcrübəsində çox böyük önəm daşıyır. Həqiqətən də müstəqil Azərbaycan öz nicatını görkəmli dövlət başçısı və uzaqgörən siyasətçi Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışında tapdı. Təsadüfi deyil ki, taleyinə xilaskarlıq missiyası yazılan əvəzolunmaz liderimizin xalqın istəyi ilə siyasi hakimiyyətə qayıtdığı gün - 1993-cü ilin 15 iyunu tarixə Milli Qurtuluş Günü kimi daxil oldu.

Tale elə gətirib ki, Azərbaycan XX əsrdə iki dəfə istiqlaliyyətini əldə etmək, özünün müstəqil dövlətini yaratmaq şansı qazanıb. 1918-ci ildə Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti xarici müdaxilə, daxili çəkişmələr və beynəlxalq təminatın olmaması ucbatından cəmi 23 ay yaşadı. Xalqımız çətinliklə əldə etdiyi ikinci tarixi şansını da o vaxtkı səriştəsiz iqtidarların günahı ucbatından cəmi iki il sonra yenidən itirmək təhlükəsi ilə üzləşdi. Bu tarixi şansı reallaşdıra biləcək dahi şəxsiyyət Heydər Əliyev xalqın təkidli tələbinə və istəyinə biganə qalmadı, Azərbaycanın kövrək müstəqilliyini qorumaq və möhkəmləndirmək kimi olduqca mühüm bir missiyanı üzərinə götürdü və onu şərəflə yerinə yetirdi.

Ulu öndər Heydər Əliyev deyirdi: "Belə bir yüksək və məsuliyyətli vəzifəni öz üzərimə götürərkən birinci növbədə Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram". Ulu öndərimizin güvəndiyi, arxalandığı bu yenilməz qüvvə sonralar qarşıya çıxan neçə-neçə təhlükəni sovuşdurmağa, keçilməz maneələri dəf etməyə imkan verdi. Böyük bir şəxsiyyət kimi tarixin onun üzərinə qoyduğu növbəti missiyanı uğurla yerinə yetirdi. Vətəndaş müharibəsinin qarşısı qətiyyətlə alındıqdan sonra ölkədə sabitlik bərqərar oldu. Təcavüzkar Ermənistanla müharibədə atəşkəsin əldə olunması ilə əsas diqqəti iqtisadi böhranın nəticələrinin aradan qaldırılmasına yönəltməyə imkan yaratdı. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan Respublikasının beynəlxalq aləmdə nüfuzunun artması, iqtisadiyyatımızın yüksəliş yoluna qədəm qoyması həmin illərin reallıqlarıdır.

Ulu öndər Heydər Əliyev hətta həlli müşkül görünən məsələləri də ustalıqla həll edə bilirdi. Bu, yalnız böyük şəxsiyyətlərə, öz xalqına inanan, ona tam bağlı olan liderlərə nəsib olur. Öz növbəsində xalq da Heydər Əliyevə inanmışdı, öz taleyini ona etibar etmişdi. Heydər Əliyevin prezidentlik və rəhbərlik təcrübəsi, ideyaları həm də gənclər üçün siyasi təcrübə məktəbidir. Bu böyük məktəbin ən real və uğurlu davamçısı olmaq hüququnu isə güclü siyasi təcrübəyə, geniş dünyagörüşünə, idarəçilik bacarığına, möhkəm iradəyə malik cənab İlham Əliyev

qazanmışdır. Heydər Əliyev siyasi məktəbinin ən layiqli davamçısı Prezident İlham Əliyev öz dərin intellekti, uzaqgörənliyi, daxildə və xaricdə baş verən ictimai-siyasi prosesləri düzgün qiymətləndirmək bacarığı, milli-mənəvi dəyərlərə bağlılığı, humanizm prinsiplərinə sadiqliyi, vətənpərvərliyi və ən əsası, verdiyi bütün vədləri yerinə yetirməsi ilə xalqın sonsuz etimadını qazanmışdır.

Son səkkiz ildə əldə etdiyimiz möhtəşəm nailiyyətlər əminliklə deməyə əsas verir ki, ulu öndərimizin müəyyənləşdirdiyi və mərhələ-mərhələ həyata keçirdiyi müdrik siyasi kurs bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dünyanın tələblərinə uyğun yeni keyfiyyət və məzmunda uğurla davam və inkişaf etdirilir. Azərbaycan hərtərəfli və sürətli tərəqqi yolunda inamla irəliləyir, növbəti zəfərlərə imza atır. Bu gün ulu öndər Heydər Əliyev cismən aramızda olmasa da, təsəllimiz odur ki, onun ideyaları yaşayır və bu siyasi kursa Azərbaycanda alternativ yoxdur. Xalqımız bəşər tarixində müstəsna yeri olan və milyonlarla insanın sevimlisinə çevrilmiş Heydər Əliyev kimi böyük oğlu ilə həmişə fəxr edəcək və hədsiz qürur hissi keçirəcəkdir.

Bu gün Azərbaycan dinamik inkişaf edən, dünya birliyində layiqli yer tutan, müstəqil siyasət yürüdən bir dövlətdir. İndi planetimizin çox yerindən nəzərlər dünyada ən böyük enerji layihələrinin gerçəkləşdiyi Azərbaycana yönəlib. Təkcə biz yox, bütün dünya bilir ki, "Əsrin müqaviləsi"nin və digər neft kontraktlarının, iqtisadi və strateji baxımdan misilsiz əhəmiyyətə malik qlobal neft və qaz kəmərinin reallaşması məhz Heydər Əliyevin xidmətidir. 1994-cü ildə çoxlarına qeyri-mümkün kimi görünən layihələri yalnız ulu öndərimizin şəxsi nüfuzu, qətiyyəti, uzaqgörənliyi sayəsində reallaşdırmaq mümkün olub.

Azərbaycanın iri beynəlxalq layihələrdə iştirakı, Böyük İpək yolunun bərpası, TRASEKA-nın reallaşması da ümummilli liderin bəşəri xidmətlərindəndir. Ulu öndər Heydər Əliyev deyirdi: "Heç bir ölkə, ən böyük ölkə də öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz... Tarixi Böyük İpək yolunun bərpası, milli və regional nəqliyyat strukturlarının, beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı Avrasiya məkanında sülhün, sabitliyin və tərəqqinin möhkəmləndirilməsi üçün böyük əhəmiyyət kəsb edir".

Azərbaycan hazırda BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvüdür. Dövlətimizin başçısı cənab İlham Əliyevin qeyd etdiyi kimi, müstəqilliyimiz dövründə belə böyük uğurun əldə edilməsi, doğrudan da, tarixi nailiyyətdir. Biz sübut edə bilmişik ki, Azərbaycan etibarlı tərəfdaşdır, Azərbaycan dost ölkədir və dostların sayının artması bizim siyasətimizin təntənəsidir. Bu qələbə Azərbaycan dövlətinin, siyasətinin təntənəsidir. Bu ilin may ayında Azərbaycan BMT TŞ-yə sədrlik edəcək. Dövlətimizin başçısı bu məqsədlə hazırda Nyu-Yorkdadır və ilk iclası da məhz cənab İlham Əliyev aparıb. Bu mötəbər hadisənin ulu öndərimizin ad günü ərəfəsinə düşməsi də həm tarixi, həm də rəmzi məna daşıyır. Heydər Əliyev ideyaları daima yaşayır və müstəqil Azərbaycan dövləti, xalqımız möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə daha xoşbəxt gələcəyə doğru inamla gedir.

**“Azərbaycan”.-**2012.-6 may.-N 99.-S.7.

# BİRİNCİLİK ƏZMİ

**Səlahəddin XƏLİLOV,**
YAP Siyasi Şurasının üzvü,
professor

**Bu gün əldə etdiyimiz böyük uğurların ideya təməli hələ ötən əsrin 90-cı illərində ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Nə yaxşı ki, estafet etibarlı əllərdədir və o vaxt məqsəd kimi qarşıya qoyulan vəzifələr bu gün bir-bir gerçəkliyə çevrilməkdədir. Üstəlik, elə yeni imkanlar açılır ki, onların da reallaşması ölkəmizin dünyada gedən proseslərin öncül mövqelərinə çıxması üçün şərait yaradır. Əsas məsələ yaxın və uzaq məqsədlərin, strateji inkişaf xəttinin elmi əsaslarla seçilməsidir. Əsas məsələ imkanların vaxtında və düzgün qiymətləndirilməsi, istəklərə uyğun iradə və əzm nümayiş etdirilməsidir. Bu sözləri İlham Əliyev hələ Prezident olmamışdan əvvəl demişdi: "Mən istəyirəm ki, Azərbaycanın, müstəqil dövlətimizin bayrağı həmişə qaldırılsın. Mən istəyirəm ki, bizim dövlət himnimiz həmişə səsləndirilsin. Əminəm ki, həmişə də belə olacaqdır!" Elə də oldu; həm də təkcə idman arenalarında deyil, iqtisadiyyatda, mədəniyyətdə və siyasətdə də bu istək reallığa çevrildi.**

Bəli, Azərbaycanın birinciliyi özünü təkcə yüksək iqtisadi inkişaf tempində yox, həm də beynəlxalq siyasi arenada qazandığı böyük nüfuzun təcəssümü kimi BMT-nin Təhlükəsizlik Şurasına üzv seçilməsində, habelə beynəlxalq mədəni həyatın ən mühüm hadisələrindən biri olan Avropa Televiziya Musiqi müsabiqəsində qazandığı qələbədə göstərdi. Bunlar ölkəmiz üçün gələcəkdə daha böyük və dayanıqlı liderlik missiyasının möhkəm təməllərindən xəbər verir. Bizcə, mayın 1-dən başlayaraq Azərbaycanın BMT-nin Təhlükəsizlik Şurasına sədrlik etməsi ulu öndər Heydər Əliyevin anadan olmasının ildönümü münasibəti ilə onun xatirəsini yad etməyin və ruhunu sevindirməyin ən gözəl vasitəsi oldu.

Keçən il "Evrovision-2011"də əldə etdiyimiz qələbə, indi isə bütün qabaqcıl Avropa ölkələrinin qatılacağı tədbirin keçirilməsinə belə möhtəşəm hazırlıq işlərinin görülməsi ölkəmizin böyük potensial imkanlarını bir daha nümayiş etdirir.

Bu hadisələr ikisi də "lider ölkə" idealına gedən yolda mühüm məqamlardır. Əvvəla, BMT-nin üzvü olan bütün dövlətlər içərisində sayılıb-seçilənlərdən olmaq, məhz siyasət müstəvisində bir çox böyük dövlətləri arxada qoyaraq beynəlxalq problemlərin həllində səs və söz sahibi olmaq Azərbaycanın dünya siyasət iyerarxiyasında yeni mövqeyindən xəbər verir. Əslində ikinci hadisə də mədəniyyət və musiqi sahəsində böyük nailiyyətlərimizin qanunauyğun nəticəsi olmaqdan əlavə, həm də ölkəmizin yüksək imicini və beynəlxalq miqyasda nüfuzunun nə dərəcədə artdığını göstərir; heç kimə gizli deyil ki, səsvermələr təkcə musiqi ifaçılarına deyil, həm də dövlətlərə simpatiyanı ifadə edir.

Bu məqalədə bizim məqsədimiz diqqəti, ilk baxışda ola bilsin ki, nəzərə çarpmayan, nisbətən dərin qatda olan fəaliyyət istiqamətlərinə yönəltməkdir. Və bu zaman aydın olur ki, Prezident İlham Əliyevin yeritdiyi kursda iqtisadi inkişaf sadəcə məqsəd olmayıb, həm də bir vasitədir: dövlət müstəqilliyinin qorunması, Azərbaycan vətəndaşlarının rifah halının yaxşılaşdırılması, yüksək intellektual və mədəni-mənəvi inkişafın təmin edilməsi, Vətənimizin "lider ölkəyə" çevrilməsi yolunda vasitə!

Bunun üçün isə ilk növbədə ölkəmizdə intellektual fəaliyyətə və elmə münasibət dəyişilməli, yeni keyfiyyət mərhələsinə qalxmalıdır. Məhz buna görə də, Prezident İlham Əliyev diqqəti dönə-dönə bu məsələyə yönəldir: "Qabaqcıl ölkələrin təcrübəsinə nəzər salsaq, görərik ki, onların tərəqqisini elm müəyyən etmişdir. Nə təbii sərvətlər, nə də ki, coğrafi vəziyyət deyil, məhz intellektual kapital, məhz elmin səviyyəsi hər bir ölkəni lider ölkəyə (kursiv bizimdir - S.X.) çevirir". Prezidentin çıxışlarındakı məntiqi ardıcıllıq gələcəkdə ölkəmizdə elmin iki istiqamətdə inkişaf etdirilməsi zərurətini nəzərdə tutur. Əvvəla, iqtisadi inkişafın ən müasir texnologiyalara əsaslanması və bunun üçün ölkəmizdə dəqiq və texniki elmlərin tətbiqinə xüsusi fikir verilməsi; ikincisi isə, Azərbaycanda iqtisadi və elmi-texniki prosesləri düzgün yönləndirmək və siyasətdə olduğu kimi, burada da ilk növbədə milli maraqlardan çıxış edə bilmək üçün ictimai elmlərin prioritetliyinin təmin edilməsi.

Bu gün Azərbaycan öz milli dövlətçilik mənini qoruyub-saxlamaqda, seçdiyi siyasi kursu davam etdirməkdə israrlıdır. Heydər Əliyev deyirdi ki, "müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir". İlham Əliyev bu fikri davam etdirərək deyir: "Dünyada müstəqil sayılan ölkələr çoxdur. Ancaq əgər biz bir az dərinə baxsaq, görərik ki, onların heç də hər biri müstəqil siyasət aparmaq iqtidarında deyildir... O ölkələr dünyada özünə layiq yeri tutar ki, o ölkələr öz hesabına yaşaya bilsinlər, başqa ölkələrin yardımına onların ehtiyacı olmasın - nə siyasi, nə iqtisadi cəhətdən, nə də ölkələrin ehtiyaclarının ödənilməsi baxımından. Azərbaycan bu ölkələrdəndir." Burada biz "müstəqillik" anlayışının yeni

dövrün tələblərinə uyğun surətdə yeni çalarlarla zənginləşdirildiyini görürük. Həqiqətən də dövlət müstəqilliyinin ənənəvi anlamına görə, hansı isə bir ərazidə müəyyən bir siyasi kursu və hüquq normalarını tətbiq etmək, sosial-iqtisadi həyatı müəyyən qaydalarla tənzimləmək üçün ilk növbədə sərhəd toxunulmazlığı təmin olunmalıdır.

Sərhəddi guya toxunulmaz qalan və formal müstəqilliyi olan elə ölkələr vardır ki, burada hər şey xarici investisiya, transmilli şirkətlərin sifarişi, yabançı mədəniyyətin təsir dairəsinin genişlənməsi ilə müşayiət olunur. Halbuki, əsas məsələ əlaqələrin genişlənməsinə rəğmən, milli maraqların qorunması, ölkədəki qanunlara, hüquq normalarına hamı tərəfindən əməl olunması, mədəni-mənəvi dəyərlərin, maddi və mənəvi milli sərvətlərin toxunulmazlığıdır. "Müstəqillik yalnız dövlət atributları ilə ölçülmür, müstəqillik rəmzləri ilə ölçülmür. Müstəqillik o deməkdir ki, dövlət və ölkənin rəhbərliyi öz xalqının maraqlarına tam cavab verən müstəqil siyasət aparmaq iqtidarında olsun" (İlham Əliyev).

Siyasi liderin böyüklüyü də zamanın tələblərini və obyektiv inkişaf tendensiyalarını vaxtında dərk edərək, milli maraqları bu zəminə keçirmək bacarığı ilə ölçülür.

XX əsrin sonlarından başlayaraq, bütün dünyada hadisələrin inkişafı vahid iqtisadi münasibətlərin formalaşması, vahid ümumdünya bazarının yaranması istiqamətində gedir. Azərbaycan rəhbərlıyi bu obyektiv tendensiyaları vaxtında nəzərə aldığından, qlobal və milli maraqlar nəinki toqquşmur, hətta bir-birini qarşılıqlı surətdə tamamlayır. Qloballaşma şəraitində milli özünəməxsusluğun qorunub-saxlanması, habelə, milli mənəvi dəyərlərə sədaqətlə yanaşı, ümumbəşəri dəyərlərin, beynəlxalq hüquq normalarının və s. inkişaf etdirilməsi - bütün bunlar Azərbaycanın siyasi simasını, onun özünəməxsus beynəlxalq imicini formalaşdırmışdır.

Beləliklə, yeni dövrdə müstəqilliyin qorunması beynəlxalq miqyaslı obyektiv proseslərin mənimsənilməsini və milli maraqlar mövqeyindən dəyərləndirilməsini tələb edir. Bunun üçün isə, ilk növbədə bütövlükdə cəmiyyətin intellektual inkişaf səviyyəsi yüksəldilməlidir.

Prezidentimizin son vaxtlardakı çıxışlarında elmə, intellektə, insan resursuna böyük diqqət yetirir. Doğurdan da, hər bir ölkənin tərəqqisi üçün elmin rolu əvəzsizdir. Lakin hansı isə bir ölkənin lider ola bilməsi xeyli dərəcədə onun başında duran şəxsin liderlik keyfiyyətindən də asılıdır. Sükan etibarlı əllərdə olmasa, ölkənin bu və ya digər sahədəki potensialı da yetərincə reallaşdırıla bilməz.

İndiyədək siyasi liderlik də, milli liderlik də hər bir ölkənin öz çərçivəsi daxilində idi. Bəs üçüncü minilliyin ilk onilliyi nə göstərdi? Dünya hansı istiqamətdə dəyişir və yeni dövrün liderindən hansı keyfiyyətlər tələb olunur?

Qloballaşma şəraitində daxili prosesləri daha stabil edə bilmək üçün mütləq xarici proseslər də diqqətlə öyrənilməli, proqnozlaşdırılmalı, nəzərə alınmalıdır. Qloballaşma elə bir həddə gəlib çatmışdır ki, ölkənin idarə olunması təkcə daxili məsələlərin həlli ilə başa çatmır. Mənbəyi daxildən qaynaqlanmayan, qlobal səciyyə daşıyan, bütün bəşəriyyəti narahat edən proseslərin transformasiyası hər bir ölkənin taleyinə təsir göstərir. Bu səbəbdən də müasir dövrdə planetar düşüncəyə malik olan, yerli məsələləri də beynəlxalq miqyaslı dəyişikliklər kontekstində, ümumi tendensiyaları nəzərə almaqla həll edən, lokalla qlobalın, milli ilə ümumbəşərinin vəhdətindən çıxış edən liderlərə ehtiyac yaranmışdır. Söhbət yalnız hansı isə xalqın, millətin deyil, bütövlükdə bəşəriyyətin ehtiyacından gedir. Əlbəttə, bu böyük, məsuliyyətli və şərəfli missiyanı üzərinə götürə biləcək dövlət başçıları çox azdır. Hətta dövlətin böyüklüyü və iqtisadi qüdrəti də burada əsas rol oynamır.

İndi zaman başqa zamandır. Təbii resursların tükənməsi hansı isə konkret ölkələr çərçivəsində deyil, bütövlükdə dünya miqyasında problemə çevrilir. Kimdə isə bir az tez, kimdə isə bir az gec. Əsas olan odur ki, daha etibarlı və daha uzunömürlü ehtiyatların üzə çıxarılması istiqamətində işlər görülsün. Və bu məsələdə gecikmək olmaz. Qloballaşma da sadəcə transmilli şirkətlərin fəaliyyət dairəsinin genişlənməsi, iri maliyyə maqnatlarının və sindikatların asılı ölkələrin iqtisadiyyatına müdaxiləsi, planetar miqyas alan ekoloji problemlərin çözülməsi istiqamətində birgə səylər, mədəniyyətlərin transformasiyası ilə məhdudlaşmayaraq, getdikcə daha çox dərəcədə ideoloji və siyasi çalarlar kəsb edir.

İndi bəşəriyyətin taleyi planetar düşüncəli siyasi liderlərin varlığından və fəaliyyətindən daha çox asılı olmuşdur.

Lakin dünyada gedən proseslərin ümumi qanunauyğunluqlarının aşkar edilməsi, bu proseslərə fəal və məqsədyönlü müdaxilə üçün təməl yaradılması dünyanın dərki prosesindən başlayır. Yəni təkcə öz ölkəsində deyil, bütün dünya miqyasında baş verən keyfiyyət dəyişmələrinin vaxtında nəzərə alınması ancaq sosial-siyasi, ictimai-iqtisadi və mədəni-ideoloji ekstrapolyasiya sayəsində mümkündür. XX əsrdə cəmiyyətin hərəkətverici qüvvəsi elmi-texniki inqilab idisə, müasir mərhələdə fəlsəfə və sosial-siyasi elmlərin proqnozlaşdırma funksiyasının paradiqmanın əvəzlənməsi prosesində (biz bilərəkdən "inqilab" sözünü işlətmirik) iştirak dərəcəsi önəmli rol oynayacaqdır. Bu isə ictimai elmlərin yüksək dərəcədə mobilizasiyasını tələb edir. Ona görə də, yeni dövrdə siyasi liderin də ən mühüm keyfiyyətlərindən biri bütün intellektual yükü öz üzərinə götürməyərək,

bütövlükdə cəmiyyətin, xalqın elmi-intellektual potensialının məqsədəuyğun surətdə yönəldilməsinə nail olmaqdır.

Hər bir xalqın bu və ya digər dərəcədə intellektual resursları vardır. Lakin onun realizasiyası elə də sadə bir məsələ deyil. Bu proses, əvvəla, çox böyük kapital qoyuluşu, uzunmüddətli ictimai təşkilatlanma işi tələb edir. Kasıb ölkələrdə maariflənmənin, təhsilin və nəhayət, elmi fəaliyyətin yüksək səviyyədə təşkili mümkün deyil. Belə ölkələrdə ən yaxşı halda beynəlxalq ictimaiyyətin dəstəyi ilə savadsızlığın ləğvi prosesi gedir. Bizim ölkə isə hələ sovet dövründə bu problemi həll etmişdir və hazırda intellektual inkişaf səviyyəsinə görə qabaqcıl ölkələrdən bir o qədər də geridə qalmır. Lakin səviyyə yüksəldikcə, yuxarıya qalxmağın çətinlikləri və məsrəfləri də artır. Ölkəmiz indi kifayət qədər yüksək maliyyə resurslarına malikdir. Gələcəyimiz bu resursların necə yönəldilməsindən asılıdır. Təsadüfi deyil ki, neft ölkələri üçün səciyyəvi olan iki fərqli situasiya: Norveç modeli və Nigeriya aqibəti simvolik məna kəsb etmişdir. Üstəlik, yeni iqtisadi modellə mədəni-mənəvi inkişaf kursunun uyğunlaşdırılması problemi ortaya çıxır.

Prezidentimiz xarici dilləri, Qərbin siyasi texnologiyalarını və Avropa mədəniyyətini yüksək dərəcədə mənimsəmiş bir şəxs olmaqla bərabər, həm də milli ruhun dövlətçilik üçün necə böyük önəm daşıdığını nəzərə alaraq, milli-mədəni dəyərlərin prioritetliyini önə çəkir. Qərblə yarışa girə bilmək, onları heç olmazsa müəyyən məsələlərdə qabaqlamaq üçün yeganə yol özümüzün üstün cəhətlərimizə istinad etməkdir. Yəni söhbət Şərq və Qərb dəyərlərinin inteqrasiyasından gedir.

Azərbaycan həm coğrafi mövqeyinə görə Şərq ilə Qərbin qovşağında yerləşir, həm də inkişaf səviyyəsinə və malik olduğu inteqrativ dəyərlər sisteminə görə bu iki fərqli sivilizasiyanın əlaqələndirilməsi və uzlaşdırılması sahəsində aparıcı rol oynayır.

Ölkəmiz, bir tərəfdən, təbii sərvətlərin, neft və qaz məhsullarının Avropaya daşınmasında tranzit bir ölkə kimi çıxış edir, digər tərəfdən də, ictimai-siyasi dəyərlərin, demokratiya və hüquqi dövlətçilik ənənələrinin, habelə elmi və texnoloji ideyaların, müasir texnika və avadanlıqların Qərbdən Şərqə transformasiyasında mühüm rol oynayır. Bir ara biz bu üstünlüyümüzü yetərincə dəyərləndirmək mövqeyi tuturduq. Yaxın keçmişdə, hələ 2005-ci ildə Hava limanı Yük terminalının açılışında Prezidentimiz belə demişdi: "Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin həyata keçirilməsində fəal rol oynayıb və hesab edirəm ki, gələcəkdə tranzit ölkə kimi bizim bölgədəki və dünyadakı mövqelərimiz daha da güclənəcəkdir." 2006-cı ildə yenə də Azərbaycanın Asiya ilə Avropanı birləşdirən körpü olması fikri vurğulanır. Amma bundan cəmi iki il sonra ölkəmizin yüksək iqtisadi inkişaf tempi eyni hadisəyə bir qədər fərqli mövqedən yanaşmaq imkanı verir. Prezident İlham Əliyevin fikrinə görə, indi biz sadəcə tranzit ölkə statusunda çıxış etmək, əlaqələndirici rolunu oynamaqla kifayətlənə bilmərik. Azərbaycan indi elə bir inkişaf səviyyəsinə qalxmışdır ki, Şərq ilə Qərb arasında körpü funksiyası onu qane etmir. Çünki biz indi öz ölkəmizin timsalında bu iki sivilizasiyanın sintezindən yaranan və daha optimal, rəqabətə daha davamlı, məhz yeni dövrün ruhunu təcəssüm etdirən daha zəngin cəmiyyət quruculuğunun nümunəsini veririk. Məzmununa görə inteqrativ və sintetik olmaqla yanaşı, tolerantlığın bir çox yeni aspektlərdə də bərqərar olması ölkəmizə həm Qərb, həm də Şərq ölkələri ilə müqayisədə bir sıra üstünlüklər verir.

İndi Azərbaycan dini tolerantlıq baxımından da bütün dünya ölkələri üçün bir nümunəyə çevrilmişdir. Bunun bir səbəbi milli mentalitetlə əlaqəlidirsə, digər səbəbi dövlət başçısının qətiyyətli mövqeyi ilə bağlıdır. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının II qurultayında bu məsələyə münasibətini belə bildirmişdir ki, Azərbaycanda "müxtəlif dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Azərbaycanda nə milli, nə də dini zəmində heç vaxt problem olmamışdır və olmayacaqdır. Bu, bizim strateji xəttimizdir". Bu məsələ beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmiş, müxtəlif ölkələrin böyük din xadimləri ilə yanaşı, tədqiqatçılar və xarici mətbuat da birgəyaşayışın bu yüksək təzahürünə dəfələrlə öz heyranlıqlarını bildirmişlər. Lakin bu fakt əslində, daha böyük miqyaslı bir ideoloji xəttin təzahürlərindən ancaq biridir.

Prezident İlham Əliyevin dövlət başçısı kimi qətiyyətli mövqeyi və işə peşəkar münasibəti xarici siyasət sahəsində də özünü göstərir. İndi ölkəmiz həm regional, həm də qlobal proseslərin fəal subyektlərindən birinə çevrilmişdir. Bir tərəfdən, ABŞ və Avropa ölkələri ilə, digər tərəfdən də, İslam ölkələri ilə sıx əməkdaşlıq və dostluq münasibətlərinin inkişaf etdirilməsi Azərbaycanın Şərq ilə Qərb arasında körpü rolunu oynamasını, mərkəzçi mövqeyini daha da möhkəmləndirir, əlaqələndiricilik missiyasını qaçılmaz edir. Azərbaycan eyni zamanda Şimalla Cənub arasında münasibətlərin mərkəzində dayanır. Həm Rusiya ilə, həm də Türkiyə və İranla iqtisadi əlaqələr getdikcə genişlənir. İndi Azərbaycan nəinki bölgənin, hətta bütün Avrasiya məkanının aparıcı dövlətlərindən birinə çevrilmişdir.

Siyasi balans naminə MDB-nin üzvü olaraq qalmaqla yanaşı, bir çox alternativ beynəlxalq qurumların da üzvü olmaq ölkəmizə öz siyasi iradəsini daha rahat ifadə etmək imkanı verir. Ölkəmiz Türk dövlətləri birliyində, İslam Konfransı Təşkilatı çərçivəsində çox fəal bir mövqe tutmaqla bu təşkilatların daha dinamik

fəaliyyətinə müsbət təsir göstərir. Bir sıra Qərb ölkələrində islama qarşı formalaşmış neqativ münasibətə, islamı radikal siyasət və terrorla əlaqələndirmək cəhdlərinə baxmayaraq, Azərbaycan kimi mütərəqqi bir ölkənin İslam dünyasına yeni bir qüvvə kimi daxil olması, apardığı məqsədyönlü siyasət və nümayiş etdirdiyi yüksək tolerantlıq islam haqqında yanlış təsəvvürlərin də dəyişilməsində mühüm rol oynayır. Bu sırada Bakının "İslam mədəniyyətinin paytaxtı" qismində göstərdiyi fəallıq bir çox ölkələr üçün gözəl nümunə oldu.

Azərbaycanın beynəlxalq nüfuzunun və iqtisadi qüdrətinin artması Dağlıq Qarabağ probleminin müzakirələrində də sözümüzün daha kəsərli olmasına imkan yaradır. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığı prinsipini qətiyyətlə müdafiə edir və ölkəmizin hərbi büdcəsini və ordunun maddi-texniki bazasını ildən-ilə daha da möhkəmləndirməklə bu məsələdə güzəştə getmək niyyətimizin olmadığını nümayiş etdirir.

Ruhun sağlamlığı təkcə bilik üzərində qurula bilmir. Burada inam, etiqad da eyni dərəcədə önəmlidir. Bütün bu cəhətlər ilk növbədə məktəblərdə, təhsil strategıyasında nəzərə alınmalıdır. Son dövrlərdə Azərbaycanda məktəblərə diqqətin artması da bu baxımdan qanunauyğun görünür. Hələ ötən əsrin 90-cı illərində İlham Əliyevin rəhbərliyi ilə başlamış Milli Olimpiya Komitəsi tərəfindən bütün bölgələrdə yeni idman komplekslərinin tikilməsi işi indi Mehriban xanım Əliyevanın rəhbərliyi ilə bütün bölgələrdə yeni məktəb binalarının tikilməsi, mədəni-mənəvi dəyərlərimizin qorunub-saxlanması və canlandırılması işi ilə davam etdirilir ki, bu da "sağlam bədən" üçün görülən işlərin "sağlam ruh" üçün görülən işlərlə tamamlanması deməkdir.

"Sağlam bədən" də, "sağlam ruh" da əslində insan potensialının realizasiyasına xidmət edən ilkin amillərdir. Mənəviyyat məsələsinin son vaxtlarda xüsusilə aktuallaşması və milli-mənəvi özünüdərkin, ictimai elmlərin, fəlsəfi təfəkkürün diqqət mərkəzinə çəkilməsi heç də təsadüfi deyildir. AzTV nəzdində ayrıca "Mədəniyyət" kanalının açılması və uğurlu fəaliyyəti də bu məqsədə xidmət edir.

İlham Əliyev BDU-nun yeni korpusunun açılışındakı çıxışında demişdir: "Bizim ən böyük resursumuz insanlarımızın biliyidir, savadıdır. Biz öz imkanlarımızdan səmərəli istifadə edərək, maddi kapitalı insan kapitalına çevirməliyik". BDU-nun 90 illik yubiley mərasimində İlham Əliyev məhz bu amili önə çəkdi: "Azərbaycan gəncləri milli ruhda tərbiyə olunmalıdır. Biz əsrlər boyu başqa ölkələrin, imperiyaların tərkibində yaşamışıq. Ancaq öz milli dəyərlərimizi, ənənələrimizi qoruya bilmişik, saxlaya bilmişik. Öz ana dilimizi saxlaya bilmişik. Nəyin hesabına?! Ona görə ki, Azərbaycan xalqında milli ruh həmişə çox yüksək səviyyədə olmuşdur. Bu gün qloballaşan dünyada, bəlkə də buna daha da çox diqqət verilməlidir". Prezident gəncləri xəbərdar edir və onları xaricdən gələn yabançı dəyərlərin zahiri cazibəsinə uymamağa, milli varlığımızın mühafizə olunması naminə ayıq-sayıqlığa dəvət edir: "Qloballaşma təbii prosesdir və yəqin ki, bu proses müəyyən düzəlişlərlə davam edəcəkdir. Xüsusilə, belə olan halda milli dəyərlərə önəm vermək, gənc nəsli milli dəyərlər əsasında tərbiyə etmək xüsusi əhəmiyyət daşıyır. Mən çox şadam ki, Azərbaycanda milli ənənələr güclənir, möhkəmlənir və bu prosesləri daha da sürətləndirmək üçün kompleks tədbirlər görülməlidir".

Əlamətdar haldır ki, son illərdə elm, təhsil və təsərrüfat sahələrinin kompüterləşməsi, yeni kommunikasiya sistemlərinə keçid, rabitə və informasiya texnologiyalarının modernləşməsi sahəsində böyük uğurlar əldə edilmişdir. Azərbaycanda qeyri-neft sektorunun inkişafı heç də təkcə kənd təsərrüfatı məhsul.larının istehsalı və yüngül sənayenin hesabına deyil, xeyli dərəcədə müasir informasiya texnologiyalarının tətbiqi sayəsində həyata keçirilir. Bütün bunlar Azərbaycanın heç də yalnız öz təbii sərvətlərinə yönəldilmiş passiv iqtisadi siyasət aparmadığını və elm tutumlu sahələrin inkişafına üstünlük verdiyini göstərir.

Azərbaycan hökumətinin strukturundakı dəyişikliklər, xüsusən Rabitə Nazirliyinin Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə çevrilməsi, Sənaye və Energetika Nazirliyi, Hərbi Sənaye Nazirliyinin yaradılması da müvafiq sahələrdə elmin xüsusi çəkisinin artırılması zərurətindən, bu sahədə uzun müddətli planlardan xəbər verir. Milli Elmlər Akademiyasında aparılması nəzərdə tutulan islahatlar da, Universitetlərdə elmin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində tapşırıqlar da, bu yaxınlarda yaradılan və artıq səmərəli fəaliyyəti ilə diqqəti cəlb edən Elmin İnkişaf Fondu da bilavasitə bu məqsədə xidmət edir.

Prezident İlham Əliyevin dönə-dönə elm və təhsil məsələlərinə toxunması və bu sahələrin dövlət siyasətində prioritetliyini vurğulaması təsadüfi deyildir. İqtisadi sahədə keçid mərhələsinin başa vurulması və dünyanın qabaqcıl ölkələri ilə eyni start xəttinə çıxılması həmin ölkələrin qabaqcıl və güclü olmasını təmin edən əsas amillərin də mənimsənilməsini tələb edir. Belə ki, Qərb dünyası nəyə nail olubsa, ilk növbədə elmi-texniki yaradıcılıq sayəsində nail olubdur. Əgər biz onlarla yarışa girmək istəyiriksə, deməli, qarşımızda duran əsas vəzifələrdən biri elm və təhsil sisteminin yeniləşdirilməsi olmalıdır. Lakin söhbət təkcə dövlət qayğısından getmir. Çünki dövlət öz strateji kursunu artıq müəyyən etmiş və bu sahələrin maddi-texniki təchizatı istiqamətində böyük işlər görülməsinə başlamışdır. Prezident İlham Əliyevin öz dediyi kimi, "son altı il ərzində

Azərbaycanda 1800 yeni məktəb tikilibdir. Yüzlərlə məktəbdə yeni korpuslar tikilib, təmir aparılıbdır. Bu nəyi göstərir?! Bu onu göstərir ki, bu sahə prioritet sahədir".

Lakin bu, işin ancaq başlanğıcıdır. Yeni binalar tikilməsi və maddi-texniki təchizat dövlət qayğısının ifadəsidir. İnsan kapitalını inkişaf etdirmək istəyən dövlət rəhbərliyi fəlsəfi tədqiqatların və ictimai elmlərin yeni şəraitdə ictimai gerçəkliyin elmi təhlili və proqnozlaşdırılması istiqamətində səfərbər edir. Həm də bu, sadəcə bir istək deyil; ölkəmizin yüksəlmiş olduğu yeni inkişaf mərhələsinin elmi surətdə dəyərləndirilməsi ilə yanaşı, bütün dünyada gedən böyük proseslərin, paradiqmaların əvəzlənməsinin mahiyyətinin açılması lazımdır. Bu gün kim həm özünü, həm də dünyanı daha yaxşı dərk edirsə, gələcək də onundur. Milli fəlsəfi fikir və ictimai elmlər qarşısında duran ən mühüm vəzifə də ideala xidmət etməkdir.

Azərbaycan iqtisadi inkişaf sahəsindəki uğurlarına və dövlət başçısının yeni ictimai paradiqmanı vaxtında mənimsəmək və milli intellektual potensial zəminində ölkəmizi lider ölkələr sırasına çıxarmaq əzminə güvənərək elm və təhsil sahəsindəki quruculuq işlərini də ən yeni dövrün və milli ruhun tələblərinə uyğun surətdə qura bilər. Bizcə, Prezidentin ölkəmizdə və dünyada gedən ictimai proseslərin daha dərindən öyrənilməsi məqsədilə ictimai elmlərin bütün potensialının səfərbər olunması barədə verdiyi tapşırıqlar da məhz bu ehtiyacdan irəli gəlir.

Əlbəttə, "intellektual kapital" ideyası özlüyündə bir yenilik deyil, çünki Qərbdə xeyli vaxtdır ki, hallandırılmaqdadır. Amma burada fərqli bir məqam var. Qərbdə bu ideya alimlər tərəfindən irəli sürülür və onun hər hansı bir dövlətin strateji xəttinə çevrilməsi üçün siyasi iradə də lazımdır. Yəni ideya əvvəlcə cəmiyyətdə formalaşır və realizasiya şansı qazanmaq üçün ictimai-siyasi təbəddülatlarla dolu uzun bir yol keçməli olur. Elmi ideyaların, xalqın istək və arzularının, potensial imkanlarının, fəaliyyət əzminin siyasi liderin fəaliyyət proqramı ilə üst-üstə düşməsi heç də asanlıqla əldə olunmur.

Bu gün bütün dünya iqtisadiyyatı ilə bərabər, dünya ictimai sistemi də sanki bir böhran keçirir. İndi hətta dünyanın sonu haqqında filmlər də çəkilir. Düzdür, Avropada Qərb ruhunun tükənməsi, onun süqutu, tənəzzülü haqqında söhbətlər çoxdandır ki, başlanmışdır. Lakin bunu yazanlar daha böyük miqyaslı proseslərdən çıxış edən filosoflardır. Həmin ölkələrdə yaşayanların heç də hamısı getdikləri yolun haraya aparıb çıxaracağını təsəvvür etmir. Əhali bu təlaşı, qorxu hissini daha çox dərəcədə iqtisadi böhranlar zamanı yaşayır. Həm də bu hadisələr zamanı kimi isə təsirləndirmək də çox çətin olur. Çünki, belə böhranlar adətən qloballaşan dünyanın dərinliklərindən gəlir. Və hamı "palaza bürünüb elnən sürünməli olur." İndi ekoloji böhranlar, kütləvi xəstəliklər, kütləvi qırğın silahlarının qlobal vahiməsi, zəncirvarı müharibə təhlükələri və s. getdikcə artır.

İndi demək olar ki, hər şey qloballaşır. Qloballaşma KİV və internet vasitəsilə artıq mənəviyyat sferasına da müdaxilə edir və bu sahədəki virusların da dərmanını tapmaq asan deyil. Yəni, qloballaşma şəraitində hər bir ölkənin dərd-səri özünə bəs deyilmiş kimi, başqalarının da qurbanına çevrilmək təhlükəsi yaranır. Dərdlər qloballaşır. Deməli, daha hər kəs təkcə özünü qorumaq, milli maraqlardan çıxış etməklə məhdudlaşa bilməz. Jan-Pol Sartr deyirdi ki, hər bir insan bütün dünyadakı günahlara görə məsuliyyət hissi keçirməlidir. İndiki dövrdə isə təkcə mənəvi məsuliyyət və ya günahkarlıq hissi bəs eləmir. İndi qlobal təhlükələr insanların həyatını bilavasitə təhdid edir.

Son onilliklərdə dünyada gedən proseslərin sürəti o dərəcədə artmışdır ki, indi ənənəvi normativlər dünyanın tənzimlənməsi üçün yetərli görünmür. Bəli, artıq yeni normaların formalaşdırılmasına ehtiyac yaranır, paradiqmalar dəyişir. Yeni dövrün ruhunu ifadə edən yeni ideyalar, idarəetmə sistemləri, milli ilə qlobalın yeni qarşılıqlı münasibət formulu harada, hansı siyasi lider tərəfindən irəli sürülürsə və həyata keçirilirsə, bütün bəşəriyyətin nəzərləri də təmsil etdiyi dövlətin miqyasından asılı olmayaraq, belə liderlərə yönəlir. İndi o dövlət rəhbərləri bütün dünya miqyasında sayılıb-seçilir ki, onlar ən azı öz xalqlarını böhranlardan və qlobal təbəddülatlardan xilas edə bilir.

İndi böyük dövlətlərin başçıları da, böyük siyasi təcrübəyə malik siyasi liderlər də yeni iqtisadi münasibətlər sisteminə təzə qoşulan Azərbaycan dövlətinin inkişaf tempinə və iqtisadi uğurlarına təəccüblənməyə bilmir, dünya praktikasında misli olmayan bu uğurları yeni iqtisadi model və yeni siyasi rəhbərlik metodlarından kənarda izah etməyə çətinlik çəkirlər.

"Maddi kapitalın insan kapitalına çevrilməsi" planı da, şəxsi liderlik keyfiyyətlərinin bütövlükdə xalqa və ölkəyə transfer edilməsi və öz ölkəsini "lider ölkəyə" çevirmək istəyi də şəxsiyyətin miqyasından və daha böyük quruculuq əzmindən xəbər verir.

**"Xalq qəzeti".-**2012.-9 may.-N 101.-S.6.

# HƏYATININ MƏNASINI VƏTƏNƏ XİDMƏTDƏ GÖRƏN ÜMUMMİLLİ LİDER

**Oqtay SULTANOV,**
tarix elmləri doktoru,
professor

**Hər bir xalqın milli mənəvi irsini, əxlaqi dəyərlərini, genetik yaddaşını gələcək nəsillərə ötürmək missiyası kimi çətin və məsuliyyətli vəzifənin gerçəkləşməsində fenomenal şəxsiyyətlərin rolu əvəzsizdir. Tarix belə şəxsiyyətləri "millət atası" kimi həmişə uca tutur. Ümummilli lider Heydər Əliyev bu baxımdan xalqımız üçün bənzərsiz və ölməzdir. Xalq bu dahi insanın "Nə qədər ki Azərbaycan var, mən də varam, mən isə Azərbaycanda əbədi olacağam" inamına əbədiyaşar vəkalət vermişdir.**

Onun həyat tarixçəsini, dövlət başçısı kimi 34 illik fəaliyyət dövrünü vərəqləsək, xalqına misilsiz xidmətin parlaq nümunələri gözlərimiz önündə canlanar. "Hələ orta məktəbdə Əbdülhaq Hamidi, Rəşad Nurini və başqa türk yazıçılarını sevə-sevə oxuyaraq, əsarətdə qalan xalqının taleyini düşünən gənc Heydər Əliyev Dövlət Təhlükəsizlik Komitəsində işləyərkən türk yazıçılarının komitənin anbarında "saxlanılan" əsərlərini gecə otağına çəkilərək səhərə qədər mütaliə edir, xalqının azadlıq dünyası haqqında düşünürdü. Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsində çalışarkən rejimin antitürk siyasətinin mahiyyətini daha yaxından müşahidə edən xalqın böyük oğlu Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə respublikanın həyatında ictimai-siyasi və iqtisadi dönüşün, onun müstəqilliyə hesablanan yolunun başlanğıcını qoydu. Təfəkkürü və qətiyyəti, respublikada və beynəlxalq aləmdə cərəyan edən sosial-iqtisadi və siyasi prosesləri analiz etmək bacarığı sayəsində milli inkişafın yeni strategiyasını formalaşdırdı. "Bütöv imperiya" siyasətinə qarşı açıq mövqe nümayiş etdirməyin qeyri-mümkünlüyünü dərk edərək, canından əziz tutduğu millətinin azadlıq hisslərinin oyadılması kimi məxfi arzulardan güc alan siyasət dövrü, məzmunu azərbaycançılıq olan siyasətin ən incə parametrlərinin bünövrəsi məhz həmin dövrdən başlandı.

Qeyri-adi qətiyyətə malik Heydər Əliyev SSRİ-də, eləcə də Azərbaycanda hökm sürən kosmopolit idarəetmə təfəkkürünə etiraz olaraq Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin 5 avqust 1969-cu il tarixli plenumunda iqtisadiyyatda, idarəetmədə neqativ halların mövcudluğunu, onların aradan qaldırılması yollarına dair proqramını bəyan etdi. MK-ya 13 illik rəhbərliyi dövründə çox böyük işlər gördü. 250-dən artıq sənaye obyekti istifadəyə verildi. Neft sənayesi, energetika, qara metallurgiya, kimya və neft kimyası sənayesi və s. sahələrdə respublika ittifaqda yüksək yerlər fəth etdi. Dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac edən Azərbaycanda milli gəlirin ümumi həcmi 2.5, sənaye istehsalı 3, kənd təsərüfatı istehsalı 2.6, əmək məhsuldarlığı 2.2 dəfə yüksəldi. Bu illərdə istehsal olunan sənaye məhsulu əvvəlki 50 ildəkinə bərabər idi. İqtisadi yüksəliş sayəsində xalqın sosial rifahının yaxşılaşdırılmasına zəmin yarandı. Yeni tibb, təhsil müəssisələri və s. istifadəyə verildi. Ali məktəblərin sayı 12-dən 17-yə çatdırıldı. SSRİ-nin 50-dən artıq böyük şəhərində 170-dən çox ali təhsil müəssisəsində 80-ə qədər nadir ixtisas üzrə on beş min azərbaycanlı mütəxəssis yetişdirildi. Əldə edilən iqtisadi uğurlar, hazırlanan yüksək ixtisaslı kadrlar respublikanın tərəqqisinin yeni mərhələsi olaraq, milli oyanış, azadlıq uğrunda mübarizə və gələcək müstəqillik dövrü üçün zəmin və yeni nəfəs idi.

Mədəniyyət adamlarının sərbəst düşüncələrinin rejimin tələblərinə uyğunlaşdırılmasının vacibliyi tələb edilməklə yanaşı, ədəbiyyat və incəsənət nümunələrinin sətraltı qatlarında milli-mənəvi səfərbərliyi təmin edən dəyərlər də təlqin edilirdi. Xalqın milli duyğularına təsir gücünü artırmaq məqsədi ilə həyata keçirilən tədbirlər, "İstintaq davam edir", "Babək", "Nəsimi" kimi filmlər, Bəxtiyar Vahabzadə, Xəlil Rza və başqa təəsübkeş yazıçıların əsərləri, repressiya qurbanlarına, Hüseyn Cavidə, Mikayıl Müşviqə və digərlərinə ucaldılan abidələr və s. xalqı soy-kökünə qayıdışa, birliyə və mücadiləyə hazırlayan Heydər Əliyev məktəbi idi. 1978-ci ildə Azərbaycan dilinin dövlət dili kimi Respublika Konstitusiyasında statusunun təsbiti "Mən fəxr edirəm ki, azərbaycanlıyam" söyləyən ulu öndərin hələ o zaman ürəyində bəslədiyi böyük məqsədlərin ifadəsi idi.

Azərbaycanın nəinki bu günü, onun sabahı da Heydər Əliyevin hakimiyyətinin birinci dövründə təməli qoyulan bazaya söykənir. XX əsrin 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində milli azadlıq hərəkatını doğuran əzəmətli yol da məhz onun tərəfindən salınmışdı. Milli oyanışın mayasında duran, xalq çağırışına səs verən ziyalı təbəqəsinin, meydan və tribunalarda azadlıq səsini ucaldan, Vətən naminə şəhidlik zirvəsinə yüksələn insanların da əksəriyyəti Heydər Əliyev dövrünün yetişdirmələridir.

"Artıq bütün SSRİ-də sənə ehtiyac duyulur. Azərbaycan daha sənin üçün kiçikdir" söyləyərək onu Moskvaya dəvət edən Sovet rəhbərliyinin təyinatı ilə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkildikdən sonra da bir an belə xalqından ayrı düşməyən Heydər Əliyev yenə də Vətənini düşünürdü.

Sovet iqtisadiyyatının tənəzzülünün gücləndiyi, xammal mənbəyi kimi istifadə olunan Azərbaycanın dərin böhran içərisində olduğu, xaricdəki himayədarlarına arxalanaraq respublikanın ərazi bütövlüyünə əl uzadan Ermənistanın işğalçılıq cəhdlərinin artdığı, Qərbin sosioloji-tədqiqat institutlarının XX əsrin 90-cı illərin sonuna qədər Sovet imperiyasının iflasının qaçılmazlığı barədəki proqnozlarının səsləndiyi bir dövrdə ümummilli lider Vətən qarşısında duran mühüm vəzifələri sərfnəzər edirdi.

SSRİ-də və dünyada baş verən iqtisadi və siyasi keyfiyyət dəyişmələrini, onların perspektivlərini uzaqgörənliklə dəyərləndirən türk dünyasının böyük oğlu, hələ 1986-cı ildə sovet siyasi sisteminin tədricən qürub edəcəyini, imperiyada yaşayan millətlərin, o cümlədən doğma xalqının azadlıga çıxacağı günün çox uzaqda olmadığını sezərək deyirdi: "O zaman hiss edirdim ki, dünyada böyük dəyişikliklər baş verir və bunu alqışlayırdım".

Beynəlxalq siyasi-iqtisadi prosesləri təhlil edən, öz xalqının və türk dünyasının XXI əsrdəki yerini uzaqgörənliklə görən ümummilli lider milli maraqların müdafiəsinə qalxmaqla millətinə sadiqlik, türk dünyasına təəsübkeşlik nümayış etdirirdi. İmperiya rəhbərliyinin hücumlardan çəkinməyərək, hələ 1986-cı ildə M.Qorbaçovun Qazaxstandakı kadr siyasətini mərdliklə tənqid edərək birbaşa onun üzünə deyirdi: "...Bunu etmək olmaz. Qazaxstan böyük bir respublikadır... Bundan əvvəl də bu respublikaya rəhbərlik edənlər qazaxlar olublar. Amma indi Qazaxstana başqa millətdən olan bir adamı rəhbər göndərmək dogru deyil". İdarəçilik bacarığı nəzərə alınaraq ittifaq rəhbərliyinin bəzi üzvləri tərəfindən dövlət başçılığına layiq şəxs kimi dəyərləndirilməsinə qısqanclıqla yanaşan M.S.Qorbaçov onun simasında antiazərbaycan siyasətinə qarşı ciddi "maneə" görürdü. Bu səbəbdən Heydər Əliyevə təzyiqlər başlandı. 1985-ci ildə otuz illik ömür-gün yoldaşı Zərifə xanımın vəfatı ilə aldığı tale zərbəsindən sonra rejimin növbəti zərbələrinə məruz qaldı. 1987-ci ildə tutduğu vəzifələrdən uzaqlaşdırıldı. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirmiş, iki xarici dili mükəmməl bilən, İngiltərə üzrə mütəxəssis oğlu İlham Əliyev bu ölkəyə getmək istəyindən məhrum edildi. Respublikada məsul vəzifələrə yüksəldilmiş, milli maraqları düşünmək qeyrətindən məhrum "şər bədxahlar"dan istifadə edərək, "antiəliyevçi" kompaniyaya start verildi. Kütləvi informasiya vasitələrində böhtan dolu çikrin təbliğat təşkil olundu. Azərbaycana rəhbərlik etdiyi dövrün sənədləri SSRİ prokurorluğunun erməni milliyyətli hüquqşünaslarının rəhbərliyi ilə qərəzli məqsədlər üçün təhqiq edilsə də, onu ləkələmək üçün bir fakt belə tapılmadı. Möhkəm əsəbləri və güclü xarakteri sayəsində bütün bu təzyiqlərə dözən Heydər Əliyev xalqı üçün yaşadı. Təzyiqlərin əsas məqsədi M.S.Qorbaçovun antiazərbaycan siyasətinə qarşı sinə gərə biləcək fenomen şəxsiyyəti sıradan çıxarmaq, xalqı "başsız" qoymaq idi. Təsadüfi deyil ki, M.S.Qorboçovun məsləhətçisi Aqanbekyanın Fransanın "Humanite" qəzetinə "Dağlıq Qarabağdakı ermənilərin əzab çəkməsi və vilayətin Ermənistana verilməsi barədə şəxsən M.S.Qorbaçova məlumat verdiyi, Qorbaçovun məsələni ermənilərin xeyrinə həll edəcəyəinə söz verməsi" haqqında məlumat məhz Heydər Əliyevin vəzifədən uzaqlaşdırılmasından sonra ortaya atıldı. XX əsrin 80-ci illərinin ikinci yarısından etibarən "türksüz Ermənistan" və Dağlıq Qarabağin ilhaqı siyasəti leqallaşdı.

Respublika rəhbərliyi isə illüziyalarla yaşayır, hadisələrin səbəbiniH.Əliyevin respublikada XX əsrin 70-ci illərindəki hakimiyyəti zamanı "ideya-siyasi tərbiyə işinin kifayət dərəcədə aparılmaması" ilə əlaqələndirməyə çalışırdı. Azərbaycanın ərazi bütövlüyünə qəsdlər, xalqın ümidgahına təziqlər beynəlxalq aləmdə iqtisadi və siyasi ziddiyyətlərin tüğyan etdiyi bir dövrdə cərəyan etməklə respublikanın vəziyyətini ağırlaşdırırdı. Belə ki, XX əsrin 80-ci illərinin ikinci yarısında beynəlxalq enerji böhranı yeni enerji mənbələri problemini ortaya çıxarmışdı. Bu cəhətdən keçmiş sovet respublikaları, o cümlədən zəngin enerji ehtiyatlarına malik Azərbaycan əlverişli geosiyasi məkan idi. Ona görə də bu respublikalara sərbəst kapital ixracı üçün maneə olan sosialist ictimai mülkiyyətinin, sovet siyasi sisteminin dəyişdirilməsi, bazar iqtisadiyyatının tətbiqi, respublikaların müstəqillik əldə etməsi dünyanın nəhəng dövlətlərinin də iqtisadi və siyasi marağına uyğun idi. Məhz belə bir dövrdə azərbaycanlıları tarixən yaşadıqları ərazilərdən didərgin salmaq, Dağlıq Qarabağın ilhaqına nail olmaq, Şərqi Anadolunu ələ keçirmək, Aralıq dənizi sahilinə koridor açmaq kimi üç tərkib hissədən ibarət olan təcavüzkar erməni siyasəti işə düşmüşdü. Erməni cinayətlərindən və respublika rəhbərliyinin zəif mövqeyindən təngə gəlmiş xalq xilası yolunu Heydər Əliyevin hakimiyyətə gətirilməsində görürdü. Bu mövqe həm Moskva, həm yerli kommunist nomenklaturası, həm də bəzi müxalifət qüvvələri tərəfindən qısqanclıqla qarşılanırdı. Vəzifədən uzaqlaşdırıldıqdan sonra "siyasi fəaliyyətlə məşğul olmayacağını" düşünən, ancaq ürəyi hər an xalqı ilə döyünən Heydər Əliyev isə sağlamlığı üçün təhlükəli bir şəraitdə, xalqının taleyinə biganə qalmır, fikirlərini ölkə rəhbərliyi ilə müzakirə etməyə çalışırdı. M.S.Qorbaçov isə onu qəbul etmək istəmir, Azərbaycana qarşı irtica hazırlayırdı. Məhz, onun göstərişi ilə 1986-cı ildə qazax,

1989-cu ildə gürcü xalqlarına qarşı törədilən azğın siyasət 1990-cı ilin 20 yanvarında Azərbaycanda da tətbiq edildi.

1990-cı il yanvarın 19-da M.S.Qorbaçovla apardığı kəskin telefon danışığından sonra bütün gecəni yata bilməyən Heydər Əliyev xalqı fəlakətə düçar olanda kənarda qala bilməyəcəyini qət etdi. Yanvarın 21-də ümummilli lider siyasi cəhətdən məhdudiyyətlərə məruz qaldığı bir dövrdə respublikanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, burada 6 minə yaxın həmvətəninin iştirakı ilə təşkil olunmuş mitinqdə çıxış etdi. Mitinqə Kommunist Partiyasından çıxmaq niyyəti ilə gələn böyük rəhbər, xalqına bir kömək etmək məqsədi ilə "bu addımı atmağın hələ tez olduğunu düşündü. Mətbuat konfransında çıxış edərək törədilmiş cinayətə münasibətini bildirdi. Xalqının dar ayağında Vətənə qayıtmasına həm Moskvada, həm də Azərbaycanda ciddi maneələr törədildiyi, "Sizin gəlişinizlə qarışıqlıqlar baş verə bilər" söylənildiyi, Bakıya yola düşməmişdən bir qədər əvvəl telefonla danışdığı və hava limanında onu qarşılayacaq tərəfdarlarından biri - Əjdər Xanbabayevin qətlə yetirildiyi təhlükəli zamanda, 20 iyul 1990-cı ildə ümummilli lider Bakıya qayıtdı. İqtidarın və müxalifətin bəzi üzvlərinin Bakı Hava Limanında onun əleyhinə planlaşdırdığı riyakar piket planı "Əliyevsevərlərin" prinsipial, təzyiqlərə məhəl qoymayan tədbirləri sayəsində kölgədə qaldı. İqtidarın Heydər Əliyev tərəfindən "boya-başa çatdırılan" nankor nümayəndələri isə "14 il Bakı şəhərini, Azərbaycanı qurub yaradan adamı Bakıda yaşamağa qoymadılar". Xalqın xilaskarı doğulduğu Naxçıvana, özünün dediyi kimi, "taleyin ümidinə buraxılmış tənha adaya sürgün edildi". 80 mindən artıq Naxçıvanlının, eləcə də respublikanın müxtəlif yerlərindən görüşünə gələn qədirbilən insanların iştirak etdiyi mitinqdə çıxış edən lider müstəqillik uğrunda mübarizədə xalqı ilə axıra qədər bir yerdə olacağını bəyan etdi. Vətənə qayıdış müstəqillik və demokratiya uğrunda ümumxalq mübarizəsinin yeni dövrünün başlanğıcını qoydu.

Azərbaycanı təcavüzkar erməni müdaxiləsindən xilas etmək, müstəqillik uğrunda yüksələn kortəbii xalq hərəkatını təşkilatlandırılmış məcraya yönəltmək, xalqın səsinə söykənmək yolunu tutan liderin Naxçıvan əhalisi tərəfindən Heydər Əliyevin xalq deputatlığına namizədliyinin irəli sürülməsi demokratiya uğrunda mübarizədə bütün Azərbaycan xalqı üçün nümunəyə çevrildi. Azərbaycanın milli dövlət kimi inkişafı naminə birlik və yekdilliyə önəm verən Heydər Əliyev Ali Sovetə deputat seçildikdən sonra çıxışları ilə Moskvanın "Yeni İttifaq layihəsi"nin antimilli mahiyyətini, imperiya ambisiyalarını ifşa etdi. Moskvanın iradəsinə uyğun olaraq SSRİ-nin saxlanmasına "hə" deyən iqtidarın referendum haqqında 9 fevral 1991-ci il tarixli qərarı Heydər Əliyevin qətiyyəti sayəsində Muxtar Respublikanın Ali Məclisinin 14 mart 1991-ci il tarixli iclasında rədd edildi.

26 avqust 1991-ci ildə Muxtar Respublikada kommunist rejimi ləğv edildi. Bir gün sonra isə xalqın tələbi ilə Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyası çağırıldı. Sessiya 30 avqust 1991-ci il tarixdə Azərbaycanın dövlət müstəqilliyi haqqında Bəyannamə qəbul etdi. Sessiyada çıxış edərək qiyamçıları, ən başlıcası, onların Azərbaycandakı əlaltılarını ittiham edən Heydər Əliyev qəti mövqe nümayiş etdirdi. Axşam qardaşının evində gecələyən xalq xilaskarına qəsd hazırlanması, hətta evə atəş açılması ehtimalı barədə məlumat çatdırıldı. Səhər saat beşdə qardaşı ilə aeroporta yollanan lider Naxçıvana qayıtdı. Naxçıvanda isə mitinqlər kəskin xarakter alırdı. 60 mindən artıq insan Heydər Əliyevi Muxtar Respublika Ali Məclisinin sədri seçilməsini tələb edirdi. Hakimiyyət arzusunda olmadığını israrla bildirsə də erməni təcavüzünün genişləndiyi bir dövrdə xalqın səsinə biganə qala bilmədi. 1991-ci il 3 sentyabrda Ali Məclisin sədri seçildi. Onun Naxçıvan Muxtar Respublikası Ali Məclisinə sədr seçilməsi respublikanın bütün əhalisinin siyasi aktivliyinin yüksəlməsinə təkan verdi. Ümummilli liderin Naxçıvan Muxtar Respublikasına rəhbərliyi dövrünldə nümayiş etdirdiyi dövlət quruculuğu təcrübəsi, dünyanın nadir dövlət xadimlərinə xas olan keyfiyyətləri onun nüfuz dairəsini daha da genişləndirdi. Azərbaycanı ən dərin böhran vəziyyətindən xalqa arxalanaraq çıxarmağın, regionda maraqları toqquşan dövlətləri bir araya gətirməyin mümkünlüyünü sübut edən böyük rəhbər beynəlxalq aləmdə "dünya siyasətinin patriarxı" kimi ad qazandı. Təsadüfi deyildi ki, ABŞ-ın sabiq prezident B.Klinton onun əzəmətini ifadə edərək söyləyirdi: "O nəinki Azərbaycanı və Amerikanı, bütün dünyanı idarə edə bilər...".

Müstəqilliyin təhlükə qarşısında olduğu tarixi məqamda ümummilli lider "tənha ada" adlandırdığı Naxçıvan Muxtar Respublikasında milli və beynəlxalq strateji maraqları uzlaşdıran siyasət kursunun təməlini qoymaqla, milli maraqların gələcəyinə hesablanmış xarici siyasət proqramı hazırladı. 1991-ci ildekabrın 27-də ABŞ-ın Moskvadakı səfirliyinin nümayəndələri Ense G.Breyter və Orbi A.Karlsonun, 1992-ci ilin aprelində ABŞ-ın Azərbaycanda ilk səfiri Robert Finin, iyulda yeni səfir Riçard Maylsın son 70 ildə ilk ABŞ diplomatları kimi Naxçıvana, Heydər Əliyevin görüşünə gəlişi Heydər Əliyevin nüfuzuna, ictimai-siyasi sabitliyin yaradılmasına yeganə ümüd bəslənilən şəxsiyyətinə beynəlxalq ehtiramın ifadəsi idi. Həmin dövrdə Heydər Əliyevin atdığı bir çox cəsarətli addımlar Azərbaycanın qonşu dövlətlərlə münasibətlərinin nizamlanmasına xidmət edirdi.

Kommunist nomenklaturası hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra da hakimiyyətdaxili çəkişmələr səngimirdi. Vətəndaş müharibəsi həddinə çatdırılan respublikanın nəinki maraqları müdafiə olunur, əksinə, ölkənin ərazi bütövlüyü düşmən tərəfindən pozulmaqda davam edir, torpaqlar işğal olunurdu.

Şəxsiyyətinə qarant kimi baxan xalqın tələbi ilə Heydər Əliyevin respublikada hakimiyyətə qayıdışı Vətənin xilasına yönələn praqmatik daxili və xarici siyasət kursuna meydan açdı. Respublikanın azad rəqabətə əsaslanan iqtisadiyyatının yaradılması sahəsində nailiyyətlərə imza atıldı. Xarici siyasətdə "Aktiv tarazlaşdırma" mərhələsi başlandı. MDB-yə daxil olmaqla ABŞ, İngiltərə, Fransa və regionda enerji maraqları olan digər dövlətlərə ilk diplomatik "təzyiq" addımı atıldı. Avropanın enerji təhlükəsizliyi üçün perspektiv imkanlara malik Azərbaycanın haqlı səsinin beynəlxalq miqyasda eşidilməsi təmin olundu.

12 may 1994-cü il tarixli Ermənistan-Azərbaycan atəşkəs razılığı məhz, yeridilən bu siyasətin bəhrəsi idi. Cəbhədə atəşkəs elan olunması ilə ölkəmiz tənəffüsə nail oldu. Dünya iqtisadiyyatına inteqrasiya, nəhəng beynəlxalq neft şirkətləri ilə əməkdaşlıq üçün vacib şərt olan daxili ictimai-siyasi sabitlik təmin edildi. Neft yataqlarına sərmayə qoymaq niyyətində olan şirkətlər Heydər Əliyev siyasətinin işığına toplanaraq 20 sentyabr 1994-cü il tarixli "Əsrin müqaviləsi"nə imza atdılar. Beləliklə, ABŞ, İngiltərə, Türkiyə, Rusiya və dünyanın digər dövlətlərinin nəhəng neft şirkətləri müqavilədə təmsil olunmaqla, Azərbaycanın enerji mənbələrinə sərmayə qoymağa səfərbər olundular.

Uzaqgörən lider neft strategiyasının Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında həlledici faktor deyil, vacib zəmin yaradacaq amil olduğunu bəyan etdi. Qətiyyəti sayəsində digər marşrut layihələrinə nisbətən baha başa gələn Bakı-Tibilisi-Ceyhan boru xəttinə üstünlük verdi. Çünki praqmatik düşünülən bu marşrut təkcə Azərbaycanda deyil, bütövlükdə ümumqafqaz evində iqtisadi-siyasi stabilliyin təminatı üçün perespektivlər açırdı. Xarici siyasətinin konsepsiya özülü milli müstəqilliyi və ərazi bütövlüyünü qorumaq, qarşılıqlı bərabərlik əsasında qurulan beynəlxalq münasibətləri inkişaf etdirmək, bütün dünya ölkələri ilə dostluq əlaqələri yartmaqdan və s. ibarət olan Azərbaycanın məqsədini ifadə edən Heydər Əliyev təsadüfi demirdi: "...Bizim məqsədimiz yalnız regionda sülhə və təhlükəsizliyə nail olmaq deyil, həmçinin bizim xalqı Qərb demokratiyasının dəyərləri ilə əlaqələndirmək, dünya ölkələri ilə fəal əməkdaşlıq üçün yeni şərait yaratmaqdır."

Sabitliyin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqəsini, bunsuz regionda sabitliyin mümkünsüzlüyünü bilən böyük diplomat müdafiə etdiyi marşrutun siyasi əhəmiyyətini, kəmərin gələcək təhlükəsizliyini NATO - Cənubi Qafqaz münasibətləri ilə vəhdətdə görürdü. Heydər Əliyevin uzaqgörən siyasəti Azərbaycanı yeni təhlükələrdən qorudu. Eyni zamanda kəmərin təhlükəsizliyi də təmin olundu. Bakı-Novorosiysk kəmərinin istifadəyə verilməsi isə Rusiya ilə münasibətlərə yeni nəfəs verməklə beynəlxalq iqtisadi maraqların tarazlaşdırılması üçün vacib addım kimi təkan verdi.

Bakı-Tbilisi-Ceyhan kəmərinin ərsəyə gəlməsi ilə uzaqgörən siyasət sayəsində Ermənistanın Naxçıvan və Türkiyə ərazisinə iddialarına, Türkiyə vilayətlərini ələ keçirərək Aralıq dənizinə koridor açmaq niyyətinə zərbə vuruldu. Neftdən əldə edilən gəlirlər şəffaf bölüşdürülərək Azərbaycanın iqtisadi və sosial inkişafına, hərbi büdcəsinin artmasına, ordunun qüdrətinin güclənməsinə zəmin yaratdı.

Milli özünüdərkə, milli və beynəlxalq maraqları uzlaşdırmaq siyasətinə əsaslanaraq dövlət idarəçiliyinin fəlsəfəsini formalaşdıran ümummilli liderin siyasət kursu sayəsində ölkəmiz bu gün 1969-1982-ci illərdə proqnozlaşdırılan müstəqillik yollarnda inamla addımlamaqdadır. Heydər Əliyevin vəhdət təşkil edən daxili və xarici siyasət kursu sayəsində Azərbaycan beynəlxalq aləmdə baş verən proseslərə təsir etmək sahəsində böyük təcrübə əldə etmiş, nüfuz sahibi olmuşdur.

Bu siyasət Avrasiya qonşuları, MDB ölkələri daxil olmaqla, həmsərhəd ölkələrlə, ənənəvi Avropa və aparıcı dünya partnyorları ilə, BMT Təhlükəsizlik Şurasının üzvləri ilə, regional təşkilatlarla, islam və türk dünyası ilə və s. istiqamətlərdə dərinləşməkdədir. Artıq dünyanın qırxa yaxın beynəlxalq və regional təşkilatının üzvü olan Azərbaycan beynəlxalq iqtisadi və siyasi proseslərə təsir edir, dünya əhəmiyyətli layihələrin iştirakçısı və ya təşəbbüsçüsüdür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən proqmativ xarici siyasət kursu nəticəsində ölkəmiz Avropa və Şərq dövlətləri ilə sıx əlaqələrə nail olmuş, dünya enerji təhlükəsizliyinin əsas ocaqlarından birinə çevrilmişdir. Neft və qaz kəmərləri, dəmir yolu xətti, Böyük İpək Yolu və digər həllini tapan layihələr Qərb ilə Şərqin qovuşuğunda olan Azərbaycanın dünya kommunikasiya sistemində əhəmiyyətli yerini təmin etmişdir. İqtisadi inkişafın ağırlıq mərkəzinin Qərbdən Şərqə keçməyə meyilli olduğu bir zamanda Azərbaycan siyasi cəhətdən yerini dəyişməkdə olan güc mərkəzlərinin də perespektivlərini nəzərə alır. "Gün gələcək ki, Xəzərin nefti Sarı dənizə qədər çatdırılacaqdır" söyləyən Heydər Əliyevin xarici siyasət kursu beynəlxalq aləmdə cərəyan etməkdə olan proseslərin uzaqgörən reallığıdır. ABŞ-Çin, Rusiya-Çin və ABŞ-Rusiya münasibətləri ilə şərtlənən XXI əsrin iqtisadi və siyasi

həyatında diplomatik mövqeyini zərgər dəqiqliyi ilə ölçən, BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilən Azərbaycan şübhə doğurmayan böyük tarixi uğurlar ərəfəsindədir.

**"Xalq qəzeti".-**2012.-10 may.-N 101.-S.7

# MÜSTƏQİL AZƏRBAYCAN YENİ QURUCULUQ MƏRHƏLƏSİNDƏ

**Yaqub MAHMUDOV,**
Milli Məclisin deputatı,
AMEA-nın Tarix İnstitutunun direktoru

**Azərbaycan bu gün dünyanın davamlı olaraq ən sürətlə inkişaf edən ölkəsidir. Müstəqillik qazanmasından cəmi 20 il keçməsinə baxmayaraq Azərbaycan Respublikası Cənubi Qafqaz regionunun lider dövlətinə çevrilmişdir. Həyata keçirilən müdrik və uzaqgörən islahatlar nəticəsində ölkəmizin iqtisadi inkişafında keçid dövrü başa çatmışdır. Dünyəvi, demokratik və hüquqi dövlət quruculuğunun bütün sahələrində böyük uğurlara imza atan Azərbaycan Respublikası dünyanın 155 dövlətinin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasına üzv qəbul olunmuşdur. Azərbaycan xalqının güzəranı gün-gündən yaxşılaşmaqda, yoxsul vətəndaşların sayı sürətlə azalmaqdadır. Paytaxt Bakı ilə yanaşı ölkənin bütün regionlarında böyük quruculuq və abadlıq işləri gedir. Azərbaycan inkişafın bütün sahələrində böyük intibah dövrünə qədəm qoymuşdur. Tarixi baxımdan çox qısa bir zaman kəsiyində əldə edilən bu böyük nailiyyətlər ulu öndər Heydər Əliyevin müəyyən etdiyi dirçəliş və inkişaf strategiyasının yaradıcılıqla və uğurla həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Bu strategiyanın gerçəkliyə çevrilməsində Yeni dövrün - Qloballaşan dünyanın böyük dövlət xadimi olan Prezident İlham Əliyevin müdrik, qətiyyətli və cəsarətli siyasəti, ölkə başçısı ilə xalq arasında yaranmış sarsılmaz birlik həlledici rol oynayır.**

Azərbaycan xalqına başçılıq edən Prezident İlham Əliyev yaşadığımız sürətlə dəyişən, dinamik dünyanın nəbzini əlində saxlayır, müasir, çevik və cəsarətli dövlət xadimi kimi beynəlxalq münasibətlərdə sürətlə baş verən dəyişikliklərdən öz Vətəninin və xalqının xeyrinə məharətlə istifadə edir, yurdumuzu gözlənilməz və gözlənilən risklərdən uğurla qoruyur. Ölkə başçımız müasir dünyada gedən siyasi və iqtisadi proseslərə dərindən bələddir, qloballaşma və inteqrasiya nəticəsində dünya meydanında baş verə biləcək bütün dəyişiklikləri irəlicədən görür və Azərbaycanı bu dəyişiklikləri qarşılamaq üçün qabaqcadan hazırlayır, öz Vətənini həyatın bütün sahələrində qələbədən-qələbəyə qovuşdurur. Dünya bu gün iqtisadi inkişafın Azərbaycan modeli ilə maraqlanır. Doğma xalqının parlaq gələcəyinə hesablanmış müdrik islahatlar həyata keçirən böyük dövlət xadimi İlham Əliyevin - Qurucu Prezidentin inkişafın bütün sahələrini əhatə edən zəfər yürüşü uğurla davam edir!..

...İlham Əliyevin prezident sükanı arxasına keçməsindən tarixən o qədər də çox vaxt keçməyib. 2003-cü ilin oktyabr günləri tarixin yaddaşında bizim üçün lap dünənki gün qədər yaxındır. O zaman müdrik xalqımız ayağa qalxıb, 1993-cü ildə olduğu kimi, ölkəni anarxiya və hərcmərclik dövrünə qaytarmaq istəyənlərə yekdilliklə və qətiyyətlə "YOX!" dedi. Və ölkənin ali rəhbərliyini, həm də öz taleyini İlham Əliyevə etibar etdi. Bununla, xalqımız həm özünə yeni Prezident seçdi, həm də müstəqillik tariximizdə, hakimiyyəti zorakılıq yolu ilə ələ keçirmək düşüncəsinə qəti şəkildə və birdəfəlik son qoydu. Demokratik yolla hakimiyyətə gəlmək ənənəsi möhkəmləndi, bir-birini inkar etmək, əvvəlki hakimiyyətdən nə qalıbsa qırıb-dağıtmaq, necə deyərlər, keçmişi daş-qalaq etmək "təcrübəsi" aradan qalxdı.

Azərbaycan xalqı o zaman əmin idi ki, prezident seçilmək üçün irəli sürülən namizədlər içərisində məhz İlham Əliyev ulu öndər Heydər Əliyevin qoyduğu yolla gedəcək, onun müqəddəs işini uğurla davam etdirəcək, Azərbaycanı tutduğu yolla daha da irəli aparacaq...

... Xalqımız yanılmadı. 2003-cü il seçkilərindən keçən zaman kəsiyi ərzində Azərbaycan Prezidenti nəinki öz ölkəsini sürətlə və iri addımlarla irəli apardı, eyni zamanda onun özü də bu mürəkkəb, keşməkeşli dünyanın ən seçilib-sayılan, sözü keçən görkəmli dövlət xadimi kimi böyük nüfuz qazandı. Bu gün Azərbaycan xalqı haqlı qürur hissi keçirir ki, onun prezidenti dünyanın hər yerində öz ölkəsinə, doğma xalqına böyük hörmət və nüfuz qazandırır, Vətənimiz uğur dalınca uğura qovuşur, ölkə başçısı doğma xalqının, el-obasının qayğıları ilə yaşayır. Qurucu Prezident gecə-gündüz xalq içərisindədir. Yurdun bütün bölgələrində quruculuq-abadlıq işlərinə şəxsən özü rəhbərlik edir.

Prezident İlham Əliyev böyük dövlət xadimi və peşəkar siyasətçidir

2003-cü ildə dünyanın ən gənc prezidentlərindən biri kimi fəaliyyətə başlayan İlham Əliyev Azərbaycan kimi çox mühüm geosiyasi mövqeyə və əhəmiyyətə malik olan, qlobal maraqların və ziddiyyətlərin kəsişdiyi məkanda yerləşən bir ölkəyə başçılıq edir. Etiraf edək ki, bu olduqca çətin tarixi missiyadır. Lakin buna baxmayaraq ölkə başçımız çox qısa bir zaman kəsiyində bütün dünyada böyük hörmət və nüfuz qazandı. Bu, dövlətçilik tariximizin çox mühüm faktıdır. Haradan və nələrdən qaynaqlanır ölkə başçımızın xalqımıza şərəf gətirən bu uğurları?!

Prezident İlham Əliyev, hər şeydən əvvəl, çoxlarına nəsib olmayan nadir bir siyasi məktəbin - dahi Heydər Əliyev dövlət idarəçiliyi məktəbinin yetirməsidir. Bu məktəbdə o dahi siyasətçidən məğlubedilməzlik dərsi almış, onun siyasət dünyasının bütün incəliklərinə yiyələnmiş, eyni zamanda, atasına qarşı baş vermiş haqsızlıqlar, təqiblər və xəyanətlərin də şahidi olmuşdur. Təkcə şahidi olmaqla qalmayıb çox gənc yaşlarından dahi rəhbərin üzləşdiyi haqsızlıqlara, xəyanətlərə qarşı mübarizəyə qalxmış, doğma xalqına xidmət etmək üçün atası ilə birlikdə çiyin-çiyinə addımlamış, şərəfli mübarizə yolu keçmişdir.

Prezident İlham Əliyev ulu öndərin yolu ilə gedərək mükəmməl siyasi təhsil almışdır. Onların hər ikisi, həm ata, həm də oğul doğma Vətənin və dünyanın tarixini öyrənməyə xüsusi maraq göstərmiş, dərin və hərtərəfli tarixi biliklərə yiyələnmiş, ali tarix təhsili almışlar: ata - Heydər Əliyev Bakı Dövlət Universitetinin Tarix fakültəsini bitirmiş, oğul - İlham Əliyev isə dünyanın ən nüfuzlu ali təhsil müəssisələrindən biri olan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda təhsil almış, elmi tədqiqat işləri aparmış, dissertasiya müdafiə etmişdir. Beləcə, Azərbaycan xalqına başçılıq edən və dünyanın görkəmli dövlət xadimi olan Prezident İlham Əliyev dərin nəzəri biliklərə və Heydər Əliyevin dövlət idarəçiliyi praktikasına yiyələnmiş peşəkar siyasətçidir...

Prezident kürsüsünə əyləşərkən İlham Əliyev, artıq dünyada tanınmış və qəbul olunmuş təcrübəli, sayılıb-seçilən dövlət xadimi idi. O, yeni və müstəqil Azərbaycan uğrunda ən ağır mübarizələrdə dahi rəhbərin ən yaxın silahdaşı olmuş, həyata keçirilən bütün islahatlarda fəal iştirak etmiş, sərbəst iqtisadiyyatın qanunauyğunluqlarına mükəmməl surətdə yiyələnmiş, Heydər Əliyev neft strategiyası və gənclər siyasətinin hazırlanması və həyata keçirilməsində öncül rol oynamış, Milli Olimpiya Komitəsinə başçılıq etmiş, Dövlət Neft Şirkətinin vitse-prezidenti və birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini kimi çox məsul vəzifələrdə çalışmış, ölkənin Baş naziri vəzifəsinədək yüksəlmişdi. Üstəlik, İlham Əliyev Prezident seçilərkən, yuxarıda deyildiyi kimi, çoxlarından fərqli olaraq, həm təhsilinə, həm də konkret ictimai-siyasi fəaliyyət təcrübəsinə görə peşəkar siyasətçi idi.

Prezident İlham Əliyev Azərbaycan dövlətçiliyinin qorunub saxlanılması və yeni Azərbaycanın qurulmasında Heydər Əliyevin ən yaxın silahdaşı olmuşdur.

İlham Əliyev müəllifi Heydər Əliyev olan neft strategiyasının hazırlanmasında, bu siyasətin dünya meydanında uğur qazanmasında və gerçəkləşməsində, həmin sahədə müxtəlif layihələrin hazırlanmasında, çox çətin diplomatik tapşırıqların yerinə yetirilməsində fəal iştirak etmiş, ölkəyə investisiya axınında mühüm rol oynamışdır. Onun ölkədə iqtisadi islahatların həyata keçirilməsində, müstəqil Azərbaycanın xarici ölkələrlə iqtisadi, siyasi və mədəni əlaqələrinin daha da genişlənməsində, xüsusilə neft-qaz yataqlarının birgə işlənməsinə dair dünyanın qabaqcıl neft şirkətləri ilə danışıqlar aparılmasında, bu sahədə tarixi müqavilələrin, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri haqqında müqavilənin bağlanması və reallaşdırılmasında, ümumiyyətlə, Azərbaycan Respublikasının dünyaya inteqrasiyasında böyük xidmətləri vardır. İlham Əliyevin böyük əməyi olan neft strategiyasının həyata keçirilməsi, beynəlxalq şirkətlərlə neft müqavilələrinin imzalanması nəticəsində, 1994-2000-ci illərdə xarici şirkətlər Azərbaycana 800 milyon ABŞ dolları məbləğində bonus vermişlər. Azərbaycanın neft sektorunda 30 mindən artıq iş yeri açılmışdı.

Prezident seçilməzdən əvvəlki dövrdə də Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda fəal iştirak edən İlham Əliyev, artıq həm də görkəmli partiya xadimi idi. O, ölkənin aparıcı siyasi partiyası olan Yeni Azərbaycan Partiyasında (YAP) böyük nüfuz sahibi idi. İlham Əliyev YAP-ın I qurultayında (1999-cu il) partiya sədrinin müavini, II qurultayında (2001-ci il) isə birinci müavini seçildi. Bu mühüm vəzifənin öhdəsindən layiqincə gələn İlham Əliyev əhalinin geniş kütlələrinin Yeni Azərbaycanın quruculuğuna səfərbər olunmasında olduqca səmərəli fəaliyyət göstərirdi. 2000-ci parlament seçkilərində YAP-ın seçki kampaniyasına məhz İlham Əliyev başçılıq etdi. Məhz onun rəhbərliyi ilə YAP həmin seçkilərdə parlaq qələbə çaldı və Milli Məclisdə böyük əksəriyyəti qazandı.

İlham Əliyev Milli Məclisin deputatı olduğu dövrdə geniş və çoxşaxəli fəaliyyət göstərmişdir. O, daim doğma xalqın içərisində olmuş, onun problemlərini öyrənmiş, əhalinin sosial müdafiəyə ehtiyacı olan təbəqələrinə müntəzəm qayğı göstərmişdir. Həmin dövrdə İlham Əliyevin əhalinin müxtəlif təbəqələrinin nümayəndələrinə, qaçqınlara, məcburi köçkünlərə və Qarabağ müharibəsinin əlillərinə qayğısı, Qaradağ rayonunda və ölkənin digər bölgələrində apardığı böyük quruculuq işləri doğma xalqa göstərilən bu qayğının parlaq təzahürləridir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvü olmuş İlham Əliyevin Avropa Şurasının Parlament Assambleyasında (AŞPA) Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin rəhbəri kimi fəaliyyəti doğma xalqa qətiyyətlə və cəsarətli çıxışları Azərbaycanın Avropa məkanında nüfuzunun daha da artmasına çox güclü təsir göstərmişdir. Məhz İlham Əliyevin yorulmaz fəaliyyəti, qətiyyətli çıxışları sayəsində erməni təcavüzkarları Avropa Şurasında ifşa olumuş, Azərbaycanın

ayrılmaz parçası olan Dağlıq Qarabağ haqqında, qondarma "Dağlıq Qarabağ problemi" barədə Qərb dünyasında oybektiv rəy formalaşmasında dönüş yaranmış, həmin münaqişəyə düzgün siyasi qiymət verilmiş, onun həlli yolunda mühüm addımlar atılmışdır. Avropa Şurasında Ermənistanın təcavüzkar, işğalçı dövlət kimi tanınmasında, erməni terrorçuluğunun beynəlxalq terrorizmin tərkib hissəsi olmasının sübuta yetirilməsində, nəzarətdən kənarda qalan Dağlıq Qarabağın narkotiklərin ötürücü məntəqəsinə və terror yuvasına çevrilməsinin Avropa və dünya ictimaiyyətinə çatdırılmasında İlham Əliyevin böyük xidmətləri olmuşdur. Avropa Şurasındakı fəaliyyəti, AŞPA-dakı obyektiv və konstruktiv çıxışları İlham Əliyevə qərb siyasətçiləri arasında böyük hörmət və nüfuz qazandırdı. Bunun nəticəsində o, AŞPA-nın vitse-spikeri və Büro üzvü seçildi (2003-cü il yanvar).

İlham Əliyev Prezident Heydər Əliyevin gənclər siyasətinin həyata keçirilməsində misilsiz fədakarlıq göstərmişdir (və bu sahədə fəaliyyətini indi də uğurla davam etdirir!). 1997-ci ildə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin prezidenti təyin olunan İlham Əliyev az vaxt içərisində həmin sahədə də yüksək təşkilatçılıq istedadına malik olduğunu sübut etdi. Onun yorulmaz və gərgin əməyi sayəsində qısa müddət ərzində Azərbaycan idmanı ayağa qaldırıldı, dünya şöhrəti qazandı. Azərbaycan idmançılarının beynəlxalq yarışlarda qazandığı parlaq uğurlar İlham Əliyevin başçılıq etdiyi idman hərəkatının, hər şeydən əvvəl, böyük siyasi qələbəsidir.

İlham Əliyev uzaqgörən dövlət xadimi və siyasətçi kimi sağlam gənclik yetişdirmək, bununla da xalqımızın sağlam gələcəyini təmin etmək üçün idmanı ümumxalq hərəkatına çevirmək xətti yeridir. Onun təşəbbüsü ilə təkcə paytaxt Bakıda deyil, eyni zamanda ölkənin bütün regionlarında da olimpiya idman - sağlamlıq komplekslərinin tikilib istifadəyə verilməsi, idmanın müxtəlif sahələrinin inkişafı üçün güclü maddi-texniki baza yaradılması xalqın sağlam gələcəyinə yönəlmiş müdrik və uzaqgörən siyasətin parlaq təzahürləridir.

Hazırda Azərbaycanın beynəlxalq yarışlarda idmanın müxtəlif sahələrində ön mövqelərə çıxması, Bakının dünya üzrə mühüm beynəlxalq yarışların keçirildiyi mərkəzə çevrilməsi Azərbaycanın şöhrətini daha da artırır, onun beynəlxalq nüfuzuna müsbət təsir göstərir. Bu İlham Əliyevin gənclər siyasətinin ən böyük uğurlarından biridir.

İlham Əliyev 2003-cü ilin prezident seçkilərinə qədər də beynəlxalq münasibətlər tarixi sahəsində dərin biliyə malik olan peşəkar siyasətçi kimi dünya miqyasında böyük hörmət və nüfuz qazanmışdı. O, bu dünyanın bir çox ölkələrində rəsmi səfərlərdə, o cümlədən dövlət səfərlərində olmuş, çoxsaylı beynəlxalq konfrans və konqreslərdə məruzələrlə çıxış etmiş, ölkəmizin iqtisadi və siyasi maraqlarını qətiyyətlə müdafiə etmişdir.

İlham Əliyev Azərbaycan Respublikası Milli Məclisinin (1-2-ci çağırış) deputatı olmuş, AŞPA-da Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı və AŞPA-nın vitse-spikeri və Büro üzvü vəzifələrində səmərəli fəaliyyət göstərmişdir. Artıq qeyd olunduğu kimi, Azərbaycan xalqı qarşısındakı xidmətləri nəzərə alınaraq İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri təyin olunmuşdu...

Bununla belə, inkarolunmaz həqiqətdir ki, o zaman - 2003-cü ildə yeni Prezidentin qarşısında çox böyük çətinliklər dururdu. Azərbaycan kimi hər tərəfdən - bütün coğrafi istiqamətlərdən ağır təzyiqlərə məruz qalan, zəngin sərvətlərinə hamının göz dikdiyi strateji bir məkanın dövlət başçısı olmaq asan məsələ deyildi. Digər tərəfdən, İlham Əliyevin prezidentliyə başlamasından cəmi 2 ay sonra ümumdünya tarixinin dahi şəxsiyyəti, bütün dünya azərbaycanlılarının ümummilli lideri Heydər Əliyev əbədiyyətə qovuşdu. Planetimizin siyasət aləmində, diplomatiya dünyasında böyük bir boşluq yarandı.

Son dərəcə ağır itki bütün xalqımızı, bütün Azərbaycanımızı silkələdi. Heydər Əliyevdən sonra hakimiyyət sükanını onun kimi əldə möhkəm saxlamaq, sərrast siyasi gedişlər etmək, müstəqilliyimizi, milli mənafeyimizi onun kimi qorumaq (özü də belə sürətlə dəyişən dünyada!), çətin sınaq məqamlarında onun kimi əlverişli çıxış yolları tapmaq, əlbəttə, asan məsələ deyildi! Beləliklə, yeni Prezidenti irəlidə çox çətin və çox ağır sınaqlar gözləyirdi. Bir sözlə, İlham Əliyev çox güclü tarixi şəxsiyyət olan Heydər Əliyevdən sonra hakimiyyətə başlayırdı...

...Dövlət başçımız İlham Əliyevin prezidentliyə başlamasından keçən zaman kəsiyi tarix baxımından, əlbəttə, yeni rəhbərin bütün sahələrdə özünü təsdiqləməsi üçün o qədər də böyük vaxt deyil! Lakin ötən müddət Prezident İlham Əliyevə kifayət etdi ki, o hələ Baş nazir təyin olunarkən bəyan etdiyi kimi, Heydər Əliyev yolu ilə getdiyini, ulu rəhbərin bütün vəsiyyətlərinə sadiq olduğunu konkret fəaliyyəti ilə, gördüyü böyük quruculuq-abadlıq işlərilə sübuta yetirsin!

Biz bütün ötən illər ərzində Prezident İlham Əliyevin başçılığı altında əzmlə, sarsılmadan, səndələmədən, necə deyərlər, düşmənləri sevindirmədən Heydər Əliyevin qoyduğu yolla getdik və uğurdan-uğura qovuşduq. Bir sözlə, Heydər Əliyevsiz yaşadığımız ötən illər ərzində Heydər Əliyev siyasətinin yeni-yeni qələbələrinin şahidi olduq, ağır sınaqlardan üzüağ çıxdıq! Dünya gördü ki, Azərbaycanda Heydər Əliyev zamanında olduğu

kimi, yenə qüvvətli siyasi rəhbərlik var, ölkədə yenə sabitlikdir, əmin-amanlıqdır, bu ölkə ilə əməkdaşlığı davam etdirmək olar!

Bu gün dünya öz inkişaf sürətinə görə hamıdan irəlidə olan Azərbaycanla əməkdaşlığa can atır. Dünya ölkələri, o cümlədən böyük dövlətlər Azərbaycana etibarlı, sabit və götürdüyü bütün öhdəliklərə sadıq tərəfdaş kimi böyük hörmətlə yanaşır. Bunun nəticəsidir ki, 2011-ci ildə Azərbaycan dünyanın 155 dövlətinin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi. Bu qısa zaman kəsiyində - vur-tut 8 il ərzində qazanılmış çox böyük nailiyyətdir. Əslində nailiyyət yox, sıçrayışdır. Bu sıçrayış ölkə başçısının çox böyük qələbəsidir!

İlham Əliyevin xarici siyasəti müdriklik, qətiyyət, cəsarət və milli maraqlara sədaqət nümunəsidir

Ötən illər ərzində Prezident İlham Əliyevin uzaqgörən xarici siyasət potensialı çox çətin sınaqlardan çıxdı. Ölkəmizin başçısı dahi dövlət xadimi Heydər Əliyevin dərindən-dərinə ölçüb-biçərək uzun müddət üçün hazırladığı və heç bir alternativi olmayan xarici siyasət strategiyasını zərgər dəqiqliyi ilə həyata keçirdi. Ağır çətinliklərlə qarşılaşdı, lakin yolundan dönmədi və qələbə çaldı. Bəzi dövlətlər Heydər Əliyevdən sonra Azərbaycanı asılı vəziyyətə salmaq üçün yeni-yeni cəhdlər göstərsələr də, İlham Əliyevin qətiyyətli, prinsipial və cəsarətli gedişləri nəticəsində geri çəkilməyə məcbur oldular. Azərbaycanı tutduğu yoldan döndərə bilmədilər. Müstəqil Azərbaycan Respublikası heç bir dövlətin forpostuna çevrilmədi!

Azərbaycan dövlətinin başçısı qarşısına çıxan bütün problemlərin həllində müdriklik, qətiyyət, cəsarət və milli maraqlara sədaqət nümayiş etdirdi. Xalqımız və Azərbaycanımız üçün lazım olan da elə bu idi!

Ölkə başçısı İlham Əliyevin xarici siyasət sahəsindəki uğurlarının əsas səbəbi budur ki, o, müasir dünyada gedən siyasi və iqtisadi proseslərə dərindən bələddir, qloballaşma və inteqrasiya nəticəsində dünya meydanında baş verə biləcək bütün dəyişiklikləri qabaqcadan görür və Azərbaycanı bu dəyişiklikləri qarşılamaq üçün hazırlaya bilir. Fikrimizcə, Azərbaycan xalqının böyük xoşbəxtliyidir ki, onun Prezidenti bugünkü sürətlə dəyişən, dinamik dünyanın nəbzini əlində uğurla saxlaya bilir, müasir, çevik və cəsarətli dövlət xadimi kimi beynəlxalq münasibətlərdə sürətlə baş verən dəyişikliklərdən öz Vətəninin və xalqının xeyrinə məharətlə istifadə etməyi bacarır. Bununla İlham Əliyev ona "özü qədər inanan" ulu rəhbərin siyasi vəsiyyətini şərəflə doğruldur!

Prezident İlham Əliyev "Dağlıq Qarabağ münaqişəsi" ilə bağlı olaraq özünün prinsipial mövqeyini hələ Avropa Şurasının Parlament Assambleyasındakı fəaliyyəti zamanı nümayiş etdirmişdir. Azərbaycanın bu məsələdə haqlı və ədalətli tərəf olduğunu, ölkəmizin təcavüzə məruz qaldığını, 20 faizdən çox torpaqlarımızın işğal olunduğunu, 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünün öz Vətənində doğma yurd-yuvasından didərgin salındığını Avropa cəmiyyətinə, bütün dünyaya çatdırmaqda İlham Əliyev misilsiz rol oynamışdır. Azərbaycan Prezidentinin mövqeyi Azərbaycan xalqının mövqeyidir: Biz torpaqlarımızın düşmən tapdağı altında qalmasına yol verməyəcəyik! Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz prinsipial və ardıcıl mövqeyini apardığı bütün danışıqlarda, keçirdiyi görüşlərdə, iştirak etdiyi müxtəlif səviyyəli beynəlxalq məclislərdə, müxtəlif kütləvi informasiya agentliklərinin nümayəndələri ilə müsahibələrində bütün kəskinliyi ilə vurğulayır: Dağlıq Qarabağ heç zaman müstəqillik əldə etməyəcəkdir. Biz ərazi bütövlüyümüz və suverenliyimizlə bağlı heç zaman, heç bir kompromisə getməyəcəyik və beynəlxalq birlik Dağlıq Qarabağdakı hərbi rejimi heç zaman özünün bir hissəsi kimi tanımayacaqdır. Biz torpaqlarımızın işğal olunması faktı ilə heç zaman razılaşa bilmərik və bizim səbrimizin də həddi vardır...

Yeri gəlmişkən, Azərbaycanın dövlət başçısı xalqın iradəsini ifadə edərək özünün bu haqlı və prinsipial mövqeyini keçirdiyi bütün yüksək səviyyəli görüşlərdə, iştirak və çıxış etdiyi bütün beynəlxalq məclislərdə dönmədən bütün kəskinliyi ilə bəyan edir, dünyada gedən ikili standart oyunlarını cəsarətlə tənqid edir.

Tarixçi Prezident bütün dünyaya bəyan edir ki, ermənilər Cənubi Qafqaza XIX əsrin əvvəllərindən başlayaraq köçürülüb gətirilmişlər. Bu gün Ermənistan Respublikası adlanan dövlətin yerləşdiyi ərazi də tarixi Azərbaycan torpaqlarıdır, keçmiş İrəvan xanlığının ərazisidir, bizim ərazimizdir. Biz ermənilərə öz torpaqlarımızda ikinci erməni dövləti yaratmağa imkan verməyəcəyik.

Ölkə başçısı bu tarixi həqiqəti 2007-ci il martın 9-da onun öz təşəbbüsü ilə keçirilən Dünya ölkələrindəki Azərbaycan və türk diasporları rəhbərlərinin Bakı forumunda bütün kəskinliyi ilə bir daha bəyan etdi.

Xalqımızın milli mənafeyini qətiyyətlə müdafiə edən Azərbaycan Prezidentinin Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı göstərdiyi cəsarətli təpkilər sayəsində dünyanın böyük güc mərkəzləri də öz ermənipərəst mövqelərindən çəkilməyə məcbur oldu.

Bütün xalqımız "Dağlıq Qarabağ problemi" ilə bağlı dönməz və ardıcıl siyasi iradə nümayiş etdirən Prezident İlham Əliyevin bu qətiyyətli və cəsarətli mövqeyini böyük razılıqla alqışlayır...

Erməni təcavüzkarlarının işğal olunmuş Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması və 1 milyondan çox qaçqınlarımızın doğma torpaqlarına qaytarılması Prezident İlham Əliyevin xarici siyasətində

başlıca qayğısıdır. Ölkə başçısı öz müdrik, qətiyyətli və casərətli siyasəti ilə doğma xalqını bu sahədə də tarixi qələbəyə yaxınlaşdırır.

Prezident İlham Əliyev bu gün təkcə Azərbaycanın deyil, bütün türk-islam dünyasının öndə gedən böyük siyasətçisidir, Yeni dövrün Yeni Lideridir.

Yeri gəlmişkən, ölkə başçımızın "Dağlıq Qarabağ münaqişəsi" ilə bağlı ardıcıl və cəsarətli mövqeyini onun Azərbaycan və türk diasporlarının fəaliyyətlərini əlaqələndirmək təşəbbüsü ilə çıxış etməsi və 2007-ci ilin 9 martında Bakı forumunun keçirilməsinə nail olması da parlaq nümayiş etdirir. Onun bu sahədəki fəaliyyəti bütün türk dünyasının daha parlaq gələcəyinə etibarlı təminat verir.

Prezident İlham Əliyevin yorulmaz və məqsədyönlü fəaliyyəti aydın sübut edir ki, böyük öndərimiz Heydər Əliyev kimi, o da bu sahəni - xarici siyasəti daim diqqət mərkəzində saxlayır, Azərbaycanın beynəlxalq əlaqələrini məharətlə tənzimləyir, ölkəmizdə uğurlu - milli maraqlarımıza cavab verən xarici siyasət yeridilməsinə üstünlük verir. Başqa sözlə, yaşadığımız dünyada müstəqilliyimizin və milli mənafeyimizin qorunub saxlanılmasında xarici siyasət aparıcı rol oynayır. Bu, artıq qeyd etdiyimiz kimi, Azərbaycanın bütün tarixi boyunca təkrar-təkrar sübut olunmuş, dəfələrlə sınaqlardan çıxmış tarixi həqiqətdir. İnkarolunmaz həqiqətdir. Əbəs yerə deyil ki, Prezident İlham Əliyev həmişə xüsusi olaraq vurğulayır: Azərbaycan öz milli maraqlarına uyğun və maraqlarının qorunmasına yönəlmiş xarici siyasət həyata keçirir. Bu cür praqmatizm Azərbaycanımıza hava-su kimi gərəkdir!

Azərbaycan dövlətinin başçısı müasir beynəlxalq münasibətlərin reallığı olan və Dağlıq Qarabağ münaqişəsinin həllində qabarıq biruzə verən ikili standartlar siyasətini davamlı olaraq kəskin tənqid edir, Ali Baş Komandan kimi ordu quruculuğuna xüsusi diqqət yetirir. Bunun nəticəsidir ki, bu gün ölkəmizin silahlı qüvvələri Cənubi Qafqazın ən qüdrətli ordusuna çevrilmişdir və istənilən anda Azərbaycanın ərazi bütövlüyünü bərpa etməyə qadirdir. Beləliklə,əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin gündəlik qayğısı sayəsində yaradılan və getdikcə güclənməkdə olan Milli Ordumuz Dağlıq Qarabağ ərazisi də daxil olmaqla erməni təcavüzkarları tərəfindən ələ keçirilmiş Azərbaycan torpaqlarının işğalçılardan təmizlənməsini yaxınlaşdıran ən mühüm amildir.

İlham Əliyev yaradıcı, yenilikçi və QURUCU PREZİDENTDİR

Azərbaycanın dövlət başçısı yaradıcı prezidentdir. Ölkə başçısının bütün fəaliyyəti aydın sübut edir ki, ehkamçılıq ona yaddır. Bizim prezidentimiz dünyada sürətlə gedən dəyişikləri diqqətlə izləyir, dövlət idarəçiliyini zamanın tələblərinə uyğun olaraq daim təkmilləşdirir, keçmiş irsi yaradıcılıqla inkişaf etdirir.

Azərbaycanın dövlət başçısı yenilikçi tarixi şəxsiyyətdir. Prezident İlham Əliyev dünyada və ölkənin daxilində gedən dəyişiklikləri daim izləyir, idarəçilik fəaliyyətində nəzərə alır, Vətəninin və doğma xalqının daha da inkşaf etməsi naminə daim yeni yollar axtarır.

İlham Əliyevin xarici və daxili siyasəti, həyata keçirdiyi bütün islahatlar, gördüyü böyük quruculuq və abadlıq işləri onun yaradıcı, yenilikçi və qurucu Prezident olmasının parlaq təzahürləridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yurdumuzun bütün vətəndaşlarının, bütün bölgələrinin, bütün regionlarının prezidentidir. Qurucu Prezidentin bugünkü qaynar fəaliyyəti sübut edir ki, ölkənin hər bir vətəndaşı, hər bir bölgəsi, hər bir regionu onun üçün eyni dərəcədə əzizdir, doğmadır. İlham Əliyevə olan ümumxalq sevgisinin sirri də məhz bundadır. Məhz buna görə ölkə başçısı Azərbaycanın hər yerində eyni dərəcədə böyük hörmət və ehtiramla sevilir...

Prezident İlham Əliyev Azərbaycanın tarixi inkişafında yeni və olduqca gərəkli bir proqramın yerinə yetirilməsini qarşıya əsas məqsəd qoyub: təbii-tarixi xüsusiyyətlərinə və ənənələrinə uyğun olaraq Azərbaycanın bütün regionlarının iqtisadi cəhətdən inkişaf etdirilməsinə nail olmaq! Bu siyasəti bütün xalqımız alqışlayır! Müəllifi İlham Əliyev olan belə dövlət proqramlarının yerinə yetirilməsi nəticəsində bölgələrimiz inkişaf etməklə yanaşı, ölkəmizin ərzaq təhlükəsizliyi təmin olunacaq, sərhədboyu torpaqlarımızın boşalmasının qarşısı alınacaq, bölgələrdə yeni-yeni iş yerləri açılacaq, xalqın bütövlükdə vəziyyəti yaxşılaşacaq, əhalimizin sayı artacaq, ağır demoqrafik duruma düşmüş Bakıya axın azalacaq, bir sözlə, yurdumuzda demoqrafik tənzimlənmə gedəcək, ölkənin sağlam işçi qüvvəsi - gənclərimiz xaricə axışmayacaq, Azərbaycan başdan-başa ahəngdar inkişaf etmiş firavan və gözəl bir ölkəyə çevriləcək. Bu müdrik siyasətin ilk bəhrələri göz önündədir. Artıq əhalimiz sürətlə artır. Lap yaxın gələcəkdə Azərbaycan əhalisinin sayı 10 milyonu aşacaq. Artıq Cənubi Qafqaz iqtisadiyyatının 80 faizdən çoxu bizim ölkəmizdə cəmlənmişdir.

Prezident İlham Əliyev ardıcıl surətdə vətəndaş həmrəyliyini möhkəmləndirmək siyasəti yeridir. O, cəmiyyətdə qarşıdurmanın, gərginliyin, soyuq münasibətlərin qəti əleyhdarıdır, Azərbaycanın parlaq gələcəyi naminə bütün xalqımızı daha sıx birləşdirməyə çalışır.

Aydın məsələdir ki, yaxın keçmişdə yurdumuzda daxili vəziyyət bugünkündən tamamilə fərqli idi. Sabitlik yaratmaq lazım idi. İşğalçı ermənilərin və onların havadarlarının ölkəmizə qarşı təcavüzünə duruş gətirmək,

Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq və möhkəmləndirmək, vətəndaş müharibəsinin qarşısını almaq üçün, bir sözlə, yurdumuzu "olum ya ölüm!" çarpışmasından zəfərlə çıxarmaqdan ötrü, zərurət yarandıqda, qəti və sərt addımlar atmaq, keçid dövrünün qanunlarına uyğun siyasət yeritmək lazım idi. Ulu öndərimiz Heydər Əliyev məhz belə də etdi. Azərbaycan məhv olmaqdan xilas edildi. Xalqımız Qurtuluş savaşında qalib gəldi!

İndi isə zaman əsaslı surətdə dəyişib. Dövlətimiz möhkəmlənib. Azərbaycan Respublikası Cənubi Qafqaz regionunda ən sabit və ən qüdrətli ölkəyə - lider dövlətə çevrilib. Bu isə ölkə daxilində qarşıdurma əhval-ruhiyyəsinin tamamilə aradan qaldırılması və vətəndaş həmrəyliyinin daha da möhkəmləndirilməsi üçün yeni imkanlar açır. Azərbaycan Prezidenti bu istiqamətdə də müdrik və cəsarətli addımlar atır.

Ötən illər ərzində dövlət başçısının dəfələrlə verdiyi əfv fərmanları nəticəsində çoxsaylı vətəndaşlarımızın cəzaçəkmə müəssisələrindən azadlığa buraxılması buna parlaq sübutdur. Xalqımız ölkə başçısının bu humanist addımlarını böyük razılıq və sevinclə qarşılayır. Prezident İlham Əliyevin əfv fərmanları, eyni zamanda, sadəcə humanizm və mərhəmət aktları olaraq qalmayıb, cəmiyyətimizin mənəvi-siyasi iqliminə də çox ciddi təsir göstərmiş, vətəndaş həmrəyliyinin daha da güclənməsinə, ölkədə ümumi bir insani istiləşməyə səbəb olmuşdur. Ən başlıcası isə budur ki, xalqımızın öz dövlətinə məhəbbəti, ölkə başçısına inamı daha da artmışdır.

Ölkə Prezidenti ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunub-saxlanılması və daha da inkişaf etdirilməsi kursunu da uğurla həyata keçirir. Onun "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamları (2004, 12 yanvar), Milli Ensiklopediyanın nəşrinə rəhbərliyi şəxsən öz üzərinə götürməsi və bununla bağlı imzaladığı sərəncamlar, alimlərə elmi dərəcələrə görə verilən əlavə əmək haqqını, tələbələr, magistrlər və aspirantların təqaüdlərini dəfələrlə artırması, sənət adamlarına, elm və mədəniyyət xadimlərinə qayğı göstərilməsini, muzeylərin, tarixi abidələrin bərpasını şəxsi nəzarəti altında saxlaması milli-mənəvi və ümumbəşəri dəyərlərə dövlət qayğısının parlaq təzahürləridir.

İlham Əliyev Azərbaycan xalqının tarixi keçmişinə xüsusi qayğı və diqqət göstərir. O, Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki roluna yüksək qiymət vermişdir: "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tariximizdə çox əlamətdar və önəmli hadisə idi. İlk dəfə müsəlman aləmində demokratik respublika yaranırdı, Azərbaycan xalqı müstəqilliyə qovuşurdu. Ölkəmiz dünya birliyinə üzv olurdu. Bu, çox əlamətdar hadisə idi".

Fərəhli haldır ki, Azərbaycan Prezidentinin müdrik və uzaqgörən siyasətinin həyata keçirilməsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyeva fəal iştirak edir. Ölkənin Birinci xanımı özünün çoxşaxəli və xeyirxah əməli fəaliyyətinə görə xalq arasında və beynəlxalq aləmdə dərin hörmət və nüfuz qazanmışdır.

Prezident İlham Əliyevin dərindən ölçüb-biçərək həyata keçirdiyi çoxsaylı islahatlar, ölkəmizdə gün-gündən genişlənən böyük quruculuq və abadlıq işləri, əhalinin müxtəlif təbəqələrinin güzəranını yaxşılaşdırmaq üçün görülən təsirli tədbirlər ona xalq arasında böyük şöhrət qazandırmışdır. Xalqımız əmindir ki, ölkə rəhbərinin müdrik, qətiyyətli və milli maraqların təmin olunmasına yönəlmiş uzaqgörən siyasəti Azərbaycanımızı daha parlaq gələcəyə qovuşduracaqdır.

Yeni dövrün yeni lideri olan Prezident İlham Əliyev artıq Azərbaycan tarixinə qurucu Prezident kimi daxil olmuşdur. Qurucu Prezident bu gün həyata keçirdiyi müdrik islahatlar proqramı ilə Azərbaycanın gələcək tarix salnaməsinin ən şanlı səhifələrini - QURUCU İLHAM DÖVRÜ adlanacaq səhifələrini yazır...

**"Xalq qəzeti".-**2012.-N 9 may.-N 101.-S.3-4.

# HEYDƏR ƏLİYEVİN MİLLİ VƏTƏNPƏRVƏRLİK ELMİ KONSEPSİYASI

**Nubar Muxtarova,**
professor,
YAP-ın Səbail rayon təşkilatının
Qadınlar Şurasının sədri

Azərbaycan xalqının ən mühüm milli-mənəvi dəyərlərindən biri öz doğma yurduna bağlılığıdır. Azərbaycan təkcə bu ərazidə yaşayan, yaradan və fəaliyyət göstərən azərbaycanlıların deyil, dünyanın hər yerində yaşayan azərbaycanlıların əzəli vətənidir.

Bütün Türk dünyasının böyük oğlu, Ümummilli liderimiz Heydər Əliyev Öz parlaq nitqlərində, məzmunlu çıxışlarında XX əsrdə xalqımızın əldə etdiyi tarixi qələbəni – müstəqilliyimizin qorunub saxlanılmasında xalqın milli şüurunun güclü şəkildə oyanmasını və vətənpərvərlik şüuruna çatdırılmasını dönə-dönə təkrar etmişdir. Bütün varlığı, ruhu, duyğuları ilə xalqına, vətəninə bağlı olan, ömrünün 34 ilini milli dövlətçilik ideologiyasının inkişafına və bərqərar olmasına həsr edən, Azərbaycanı qarış-qarış qurub inkişaf etdirən Heydər Əliyev təkcə milli-mənəvi dəyərlərimizin, dövlətçiliyimizin təşəkkülünə töhfələr vermədi, milli-mənlik və milli kimlik şüurumuzun inkişafına təkan verdi.

Genişmiqyaslı layihələri, çoxşaxəli fəaliyyəti ilə hər bir azərbaycanlının ruhuna, duyğusuna vətənpərvərlik toxumları səpən Ümummilli liderimiz Heydər Əliyevin milli dövlətçilik, vətənpərvərlik şüuru, dil, mədəniyyət, vicdan azadlığı, iqtisadiyyat, elm konsepsiyaları bu günki inkişafımızın təməlini təşkil edir. Heydər Əliyevin milli şüur – vətənpərvərlik şüuru elmi konsepsiyası bu gün yeni mahiyyət almış, daha da genişlənərək bütünlükdə xalqımızın vətənpərvərlik tərbiyəsində əvəzsiz örnəyə çevrilmiş, xalqımıza Vətən sevgisi, Vətən birliyi, Vətən bütövlüyü aşılamışdır. Ulu öndərin fikrincə, Vətən yalnız insanların toplumu olan, sadəcə, coğrafi ərazi deyil, Vətən hər bir azərbaycanlının harada yaşamasından asılı olmayaraq şan-şöhrəti, namusu, qeyrəti, əyilməz vüqarı, qürur mənbəyi, bütün varlığı, bəxti, taleyi, gücü, qüdrəti, ədəbi səcdəgahıdır. Səməd Vurğunun "Azərbaycan" şeirini söyləyərkən Ulu öndərin necə kövrəldiyinin hamımız canlı şahidiyik. Bugünkü, müasir, müstəqil, çiçəklənən Azərbaycan bütün varlığını, ömrünü, ağlını, zəkasını, öz xalqına, millətinə həsr etmiş Ulu öndərimiz Heydər Əliyevin bizlərə müasir nəsillərə ən müqəddəs, ən ülvi əmanəti, yadigarıdır.

Heydər Əliyevin milli vətənpərvərlik konsepsiyasında ən önəmli məsələ bütün xalqımızda, xüsusən gənc nəsildə milli şüurun formalaşdırılması məsələsidir. Ümummilli liderin fikrincə, milli şüur, öncə vətənpərvərlik şüurudur. Heydər Əliyev çıxışlarının birində göstərirdi: "O vaxt Azərbaycan gəncləri elmi şüurla, vətənpərvərlik şüuru ilə yaşayan insanlar Azərbaycana qarşı ədalətsizliyə etiraz əlaməti olaraq meydanlara çıxdılar, böyük mitinqlər keçirildi, 20 yanvar hadisələri Azərbaycan xalqının milli şüurunun daha da yüksəldiyini göstərdi. Eyni zamanda, bu hadisələr milli hərəkatın, milli şüurun imperiya qüvvələri tərəfindən boğulduğunu göstərdi. Ancaq eyni zamanda, Azərbaycan xalqı sübut etdi ki, onun mənliyi var, milli qüruru var".

Bütün xalqımızın milli şüurunun oyanması ilə müşayiət olunan bu hərəkat özünün siyasi məzmununa görə dünyada gedən qlobal proseslərin ümumi kontekstinə qovuşdu. Azərbaycan xalqının milli varlığının təməlini milli şüurda və milli birlikdə görən Ulu öndərin fikrincə "Azərbaycan xalqının qəlbində milli azadlıq ruhu, müstəqillik ruhu daim yaşamışdır. Azərbaycanın qabaqcıl adamları, mütəfəkkir şəxsiyyətləri, ziyalıları, milli şüura malik insanları Azərbaycanın öz müstəqilliyini əldə edəcəyi, milli azadlığa nail olacağı ümidilə yaşamışlar".

Milli şüur hər bir insanın mənsub olduğu millətə və vətənə bağlılıq hisslərini əks etdirən, öz hərəkət və davranışına, düşüncə tərzinə, baxışlarına olan münasibətlərin məcmusudur. Milli şüur mənəvi dəyərləri, milli adət-ənənələri özündə ehtiva edir. Milli şüurun formalaşmasında soy-kökə qayıdış, milli əxlaq, vətənə məhəbbət, milli vətənpərvərlik və qürur hissləri kimi mühüm göstəricilərlə yanaşı, özünüdərketmə, öz layiqli yerini müəyyənləşdirmə kimi hisslər də əsas rol oynayır. Ulu öndər milli şüurla Vətən, torpaq arasında üzvi bir bağlılıq olduğunu görür, milli şüuru milli-mənəvi bütövlüyümüz hesab edirdi.

Heydər Əliyevin milli vətənpərvərlik konsepsiyasında ən önəmli yerlərdən birini də müasir nəsli milli ruhda, milli vətənpərvərlik ruhunda tərbiyə etmək məsələsi tutur. Müasir nəslin milli ruhda tərbiyəsi: – soy-kökümüzdəki, milli mədəniyyətimizdəki, adət-ənənələrimizdəki, milli-mənəvi varlığımızdakı müsbət və mütərəqqi cəhətləri yeniləşdirməkdən, dirçəltməkdən və təlim-tərbiyə prosesində ondan maksimum istifadə etməkdən ibarətdir.

Ulu öndər Gənclərin birinci forumundakı nitqində (1996-cı il) öz narahatlığını belə bildirirdi: "Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi də yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tarixi yaxşı bilməyən, gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik sadəcə orduda xidmət deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik!".

Ulu öndər Heydər Əliyevin fikrincə, dövlətçiliyimizin möhkəmlənməsi gənclərin bir şəxsiyyət kimi formalaşmasından – onların milli ruhda tərbiyəsindən çox asılıdır. Milli ruh, hər şeydən öncə – vətənpərvərlik ruhudur. Ulu öndər demişdir: "Hər bir vətəndaş vətənpərvər olmalıdır. Əgər öz vətənini, torpağını, xalqını sevməsən, öz xalqının mənəvi dəyərlərinə sadiq olmasan, şübhəsiz ki, başqa şeyləri də qiymətləndirə bilməzsən. İndi bizim əsas vəzifəmiz gənclərdə vətənpərvərlik ruhunu, milli ruhu, döyüş ruhunu qaldırmaqdır. Vətəni, torpağı müdafiə etmək, hər bir gənc üçün müqəddəs vəzifə olmalıdır".

Vətənpərvərlik hissi tariximizə, doğma torpaqlarımıza bağlılıqdan, onları düşmənlərdən qorumaqdan başlayır. İndiki halda milli vətənpərvərlik hissi hər bir azərbaycanlının bir vətəndaş kimi yerini, mövqeyini, ləyaqət və dəyanətini müəyyən edir, onu bu yolda misilsiz qəhrəmanlıqlar və fədakarlıqlar göstərməyə ruhlandırır.

Heydər Əliyev gənclərin milli vətənpərvərlik, hərbi vətənpərvərlik problemlərini daim diqqətdə saxlayırdı. Hərbi vətənpərvərliyi milli vətənpərvərliyin zirvəsi hesab edən Ulu öndər gəncləri hərbi xidmətə hazırlamağa, orduda qulluq edən gənclərə qayğı göstərməyə, onların fiziki və mənəvi, hərbi-texniki hazırlığını yüksəltməyə xüsusi əhəmiyyət verirdi. Heydər Əliyev, gənclər qarşısında çıxışlarının birində qeyd edirdi: "Azərbaycanın suverenliyi hər bir azərbaycanlı vətəndaş üçün ən müqəddəs məqsəddir, ən müqəddəs vəzifədir. Belə olan halda biz öz taleyimizin sahibi kimi, vətənimizi, torpaqlarımızı öz gücümüzlə qorumalıyıq. Bunu xalq, bizim gənclər, ordu sıralarındakı vətən oğulları etməlidirlər. Ona görə orta məktəblərdə bir tərəfdən hərbi tədrisə, gənclərin fiziki hazırlığına ciddi fikir verilməlidir, digər tərəfdən isə gənclərdə vətənpərvərlik hissini yüksəltmək, vətəni qorumağa hazır olmaq ruhunda tərbiyə etmək lazımdır".

Milli vətənpərvərlik hissinin formalaşdırılması, təbii ki, milli şüurun əsasında duran milli mənlik şüurunun inkişaf etdirilməsi ilə mümkündür. Ulu öndər Heydər Əliyev deyirdi ki, milli mənlik şüuru Vətən əxlaqıdır, milli əxlaqdır. Milli mənlik şüuru, milli özünüdərkin, milli özünütəsdiqin, milli özünəməxsusluğun bütün əlamətlərini özündə birləşdir, milli rəmzlərə, adətlərə, ənənələrə yeni həyat verir, dini etiqadlar, müqəddəs bayramlar, xalqın özünə qaytarılır, bu qayıdışda yeni bir ruh, yeni təfəkkür, yeni mənəviyyat, milli vətənpərvərlik hissi öz əksini tapır. Özünə, öz kökünə qayıdan, dirçəliş prosesi xalqımızın, xüsusən gənclərin gözləri qarşısında və onların fəal iştirakı zəminində baş verir. Özünü öz ölkəsinin əsl vətəndaşı hesab edən hər bir ləyaqətli, dəyanətli, iradəli, əqidəli vətənpərvər gənc özünün əməli fəaliyyəti, elmə münasibəti ilə millətin adı və varlığı ilə fəxr edir, onlarda milli xarakter və milli mənəviyyat formalaşır. Çünki milli mənlikdə milli ideal, milli ləyaqət, milli şərəf, milli birlik hissi, azadlıq, müstəqillik arzuları, milli qürur hissi reallaşır. Ulu öndər gənclərlə görüşlərində bu fikirləri dönə-dönə xatırladırdı: "Milli mənlik hər bir adamın özünün milli mənsubiyyətini ətraflı dərk etməsinə imkan yaradır. Milli mənliyi olan şəxs milli həyatın heç bir hadisəsinə laqeyd qala bilməz. Vətən, torpaq məhəbbəti, millətin və xalqın qayğıları onun şəxsi istək və arzularını üstələyir, onu xalq üçün müəyyən fəaliyyət göstərməyə sövq edir".

Göründüyü kimi, milli mənlik şüuru hər bir millətin varlığının, milli özünüidarə və özünütəsdiqləməsi, milli ləyaqətin və ümumbəşəri keyfiyyətlərinin təzahür formasıdır. Milli mənlik şüurunda millətin adı, varlığı, dili, dini, xarakteri, adət və ənənələri, psixologiyası, mənəviyyatı, mədəniyyəti və s. yaşayır. Məhz milli ləyaqət, torpağa bağlılıq, vətəndaşlıq dəyanəti bu qaynaqlardan nəşət edir, hər bir yeni nəsli azadlığa, müstəqilliyə, vətəni qorumağa çağırır. Hər bir insanda milli mənlik şüuru belə bir zəmin üzərində təşəkkül tapır və belə bir həqiqəti təsdiq edir ki, mədəniyyətin, elmin, ədəbiyyatın inkişafı xalqın böyüklüyü və kiçikliyindən deyil, həmin xalqın müdrikliyindən, zəngin təfəkkür tərzindən, torpağa, elə bağlılığından asılıdır. Tarix təsdiq edir ki, heç bir inkişaf, heç bir təkamül, heç bir hadisə zaman və məkan təsirindən kənarda baş vermir. Milli-mənəvi mühitin təşəkkülü, sosial mühit bütün xalqımızın, o cümlədən, gənclərin cəmiyyətdəki sosial vəziyyətinə, öncə, onların hiss və duyğularına, ictimai, həyatın hadisə və faktlarını duymaq, qavramaq və dərk etmək qabiliyyətinə əsaslı təsir göstərir. Gənclər mənsub olduğu millətə aid bütün artibutlara: milli bayrağa, gerbə, himnə, dini etiqada və s. fəal münasibət bəsləyir, qiymət verir, özlərinin əməli fəaliyyəti üçün nəticə çıxarmaq imkanı əldə edirlər. Axı, torpaq, vətən insanın yaşayış və əbədiyyət məskəni, ulularımızın müqəddəs mədfənidir. Ulu öndər Heydər Əliyev bu hissləri öz məcrasına yönəldərək, milli-mənəvi simanın daha məzmunlu istiqamət almasına, milli prosesləri milli mənafeyə uyğun şəkildə daha dəqiq tənzim etməyə, milli hiss və emosiyalardan yaranmış ümman – millət və xalq adlanan ümmana yönəltməyə nail olmuşdur. Gənclərin vətənpərvərlik səyləri xalqımızın qüdrətli, yenilməz hərəkatı ilə birləşir və tariximizin əzəmətli, unudulmaz və misilsiz qəhrəmanlıq

səhifələrinin yaranmasına və yazılmasına səbəb olur. Bu isə, öz növbəsində, insanlarda milli borc, torpağa bağlılıq, milli şüur və iftixar, vətəndaşlıq hissinin yaranmasına gətirib çıxarır. Milli mənlik şüuru, milli özünüdərk vətənlə, torpaqla, mədəniyyətlə, incəsənətlə bağlı gerçəkliyin təzahürü olub, sosial-iqtisadi, mədəni və mənəvi mühitin qavranılması, dərk edilməsi və təsdiqidir. Milli mənlik şüuru formalaşmış və tərbiyə olunmuş hər bir insan, vətəndaş, öz xalqının mənəvi sərvətlərinin tarixi inkişaf xüsusiyyətlərini, sosial-etnik cəhətlərini bütün dolğunluğu ilə dərk edir, ona düzgün qiymət verir.

Milli soy-kökə qayıdış, milli tarixi yaddaşın bərpası, milli soy-kökünü bilmək, onu seçmək kimi mənəvi keyfiyyətlər də Ulu öndər Heydər Əliyevin milli vətənpərvərlik elmi konsepsiyasında önəmli yer tutur. Xalqımızın özünəməxsus zəngin tarixi keçmişini düzgün, dərindən bilmək, həmişə öz tarixi keçmişimizə hörmət və məhəbbətlə yanaşmaq, gənclərdə milli vətənpərvərlik hissini daha da artırır, möhkəmləndirir. Milli qeyrət, milli ləyaqət rəmzinə daim hörmətlə yanaşan Heydər Əliyev deyirdi: "Əgər biz Azərbaycanı müstəqil bir dövlət kimi dünyaya yaxşı tanıtmaq istəyiriksə, Azərbaycanın qədim tarixini, əsrlər boyu keçdiyi yolu gərək həm öz vətəndaşlarımıza, həm də bütün ölkələrdə olan elm adamlarına, respublikamıza maraq göstərən adamlara tanıdaq. Mənəviyyatımız, gənclərin bugünkü və gələcək mənəviyyatı bununla bağlıdır. Çünki tariximizi, tarixi köklərimizi yaxşı bilmədən, onlara hörmət etmədən müstəqil dövlətimizi gələcəkdə yaxşı qura bilmərik".

Milli soy-kökünə bağlılıq ən yüksək mənəvi dəyərdir. Ona görə ki, soy-kök milli kökdür, mənəvi kökdür. Xalqın milli mənliyi həm də onun soy-kökünə necə bağlılığı ilə ölçülür. Respublikamızda gənclər gününə həsr olunmuş idman bayramında söylədiyi nitqində Ulu öndərimiz demişdir: "Biz fəxr edə bilərik ki, milli, dini, mənəvi ənənələrimiz, dəyərlərimiz həmişə ən yüksək mənəviyyatı əks etdiriblər. Biz çalışmalıyıq ki, bu mənəvi dəyərlərə daim sadiq olaq. Hər bir gənc öz kökünə sadiq olmalıdır. Bizim öz kökümüz çox sağlam kökdür və biz onunla fəxr edə bilərik".

Ulu öndərin hər il dövlət səviyyəsində keçirilən Novruz bayramında xalqın içərisində olması, xalqı təbrik etməsi, Onun milli adət-ənənələrimiz, qədim adətlərimizin qorunub saxlanılmasına münasibəti, Onun öz milli soy-kökünə – Azərbaycançılıq kökünə qəlbən bağlı olduğunu bir daha sübut edir. Ümummilli liderimiz Heydər Əliyevin şəxsi nümunəsi bütün xalqımızda milli-vətənpərvərlik hissinin oyanmasında canlı örnəkdir. Milli vətənpərvərlik hissi, ruhu, milli mənəviyyatımızın açarı, zəngin milli sərvətimiz, ruhumuz, eşqimiz, canımız, bir-birimizlə əhdü-peymanımız (B.Vahabzadə), böyük milli dəyərimiz, xalqımızın varlığını yaşadan canlı abidəmiz, "Varlıq möhürümüz" (Nizami Cəfərov) olan doğma dilimizə vətəndaş qayğısı ilə üzvi surətdə bağlıdır. Ulu öndər Heydər Əliyevin dediyi kimi, "Bizim zəngin, böyük söz ehtiyatına malik olan gözəl dilimiz var və Mən Azərbaycan dilini sevirəm. Bu, Azərbaycanın dövlət dilidir, ölkədə Mən yalnız Azərbaycan dilində çıxış edir və danışıram, dil xalqın böyük milli sərvətidir. Bu sərvəti mənimsəmək, bu dildə səlis danışmaq, bu dili ana dili kimi sevmək lazımdır. Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz. Hələ çox adamlar var ki, öz ana dilində mədəni, ədəbi dilin ifadələrindən istifadə edərək yaxşı danışmaq imkanına malik deyillər".

Yaxşı deyiblər ki, əgər bir milləti məhv etmək istəyirsənsə, əvvəlcə onun dilini məhv et. Göründüyü kimi, vətənə sevgi Ana dilinə hörmətlə başlayır. Ana dilinə hörmət millətə hörmət, ana dilinə sevgi isə millətə sevgi deməkdir. Ulu öndərimiz çox zəngin və gözəl bir dildə, Azərbaycan dilində səlis, ifadəli, emosional, təsirli, mədəni danışması ilə fəxr edir, qürur və şərəf duyurdu, bununla da, O, doğma dilimizi daha da şərəfləndirirdi. Dilimizə – milli sərvətlərimizə, mədəniyyətimizə, tariximizə nə qədər yüksək qiymət versək, qeyri-millətlərin yanında xalqımızın dəyəri, qiyməti o qədər artar.

Milli vətənpərvərlik hissini milli mədəniyyətə, milli təhsilə qayğı göstərmədən, milli mənafeyi qorumadan və vicdan azadlığını təmin etmədən, sadəcə, təsəvvür etmək qeyri-mümkündür. Çünki xalqı, milləti dünyada tanıdan, dünya sivilizasiyasında özünəməxsus yer tutmasında da milli mədəniyyətin, milli təhsilin rolu böyükdür.

Ulu öndərin fikrincə, yunanlara bütün dünyada hörmət gətirən onların antik mədəniyyətidir. Təsadüfi deyildir ki, Ümummilli liderimiz Heydər Əliyev xalqımızın inkişafı tarixində elm, təhsil və mədəniyyətin hamisi kimi möhtəşəm yerini tutmuşdur.

Ulu öndər təhsilə yüksək qiymət verərək onu "Xalqın gələcəyi" adlandırırdı. "Təhsil mürəkkəb bir sahədir. Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə də ticarətdir. Bu, cəmiyyətin xüsusi intellektual cəhətini əks etdirən sahədir".

Ulu öndərin milli vətənpərvərlik elmi konsepsiyası – milli şüurumuzun, milli mənlik şüurumuzun təşəkkülü, milli soy-kökümüzə, milli özünə qayıdış, milli özünüdərk etmənin, milli-mənəvi sərvətlərimizə münasibətin, çox mühüm, humanist problemlərin: doğma dilimizə, dinimizə, tarixi keçmişimizə münasibətin öyrənilməsində Azərbaycan xalqının milli ruhunu, milli vətənpərvərlik hissini, milli qürurunu, milli mənliyini,

milli heysiyyatını, vətəndaşlıq şüurunu, milli mənəvi dəyərlərimizə hörmət və məhəbbətin ifadəsi olan perspektiv fəaliyyət proqramıdır.

**"Yeni Azərbaycan".-**2013.-30 mart.-N 54.-S.5.

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA QADIN SİYASƏTİ

**NURLANA ƏLİYEVA,**
**YAP Qadınlar Şurasının sədri, professor**

**Bu gün Azərbaycan qadınları müstəqil respublikamızın ictimai-siyasi həyatının bütün sahələrində əzmlə çalışırlar**

Tarixi həqiqətdir ki, bütün dövrlərdə və dünyanın hər yerində qadına münasibət məsələsi həmişə gündəmdə olmuşdur. Qadın anadır, həyat yoldaşıdır və həm də bəşəriyyətin yarıdan çoxunu təşkil edən sehrli, incə varlıqdır. .Eyni zamanda, həm də danılmaz faktdır ki, Azərbaycan qadını əsasən XX əsrdən başlayaraq, kişilərlə çiyin-çiyinə, bərabərhüquqlu vətəndaş kimi cəmiyyətdə çox fəal olmuşdur. Lakin bir xüsusiyyət də mövcuddur ki, həmin mövcudluğun arxasında qadınlarımızın dəyərlərini ehtiva edən məqamlar dayanıb. Və həmin məqamlardan biri və birincisi, təbii ki, Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu cəhətdən təhlillər aparsaq, şahidi olarıq ki, Ümummilli Liderimiz Heydər Əliyevin xalqın təkidi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıtması Azərbaycan qadınına olan qayğını daha da artırdı. Onun ölkəmizdə açıq cəmiyyət uğrunda gördüyü işlər gender probleminin həlli üçün hərtərəfli baza yaratdı. Burada bir məsələni xüsusi vurğulamaq istəyirəm. Ulu Öndər Heydər Əliyevin qayıdışı Azərbaycanın müharibə şəraitində olduğu bir zamana təsadüf edirdi. Yəqin ki, müharibə dövründə qadınların daha böyük məhrumiyyətlərlə üzləşdiyini hamı təsdiqləyər. Çünki hər hansı insan itkisi bir ananın övladını, bir qadının ailə başçısını, bir qızın nişanlısını itirməsi deməkdir. Məhz Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra analarımızın, gəlinlərimizin, qızlarımızın göz yaşları qurudu, ah-nalələrə son qoyuldu, atəşkəs əldə edildi. Düzdür, bu gün də mənfur qonşumuz olan Ermənistanın təcavüzkar və terrorçu siyasəti ucbatından bu atəşkəs pozulur, ara-sıra müəyyən itkilər olur. Ancaq bu hal kütləvi, birinci Qarabağ savaşındakı kimi deyil. Bu mənada, hər birimiz Azərbaycan qadını olaraq, Ümummilli Liderin siyasi dəsti-xəttinə və bu dəsti-xəttin layiqli davamçısı cənab Prezident ilham Əliyevə minnətdarıq.

Ümummilli Liderimiz Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə gələndən sonra Azərbaycanın qadın hərəkatında yeni mərhələ, nəzərə çarpacaq yüksəliş, fəallıq və təşkilatlanma mərhələsi başlanmışdır. Məhz 1993-cü ilin ortalarından üzübəri Azərbaycan qadını müdrik xalq rəhbərinin ardıcıl və məqsədyönlü səyi, prinsipial diqqət və qayğısı nəticəsində cəmiyyətdə durmadan yüksəlir, ictimai-siyasi həyatda öz layiqli yerini tapır və liderləşir. indi artıq reallığa çevrilmiş fəal qadın hərəkatı əsil dirçəliş yoluna 1994-cü ildən qədəm qoymuşdur. Bu dirçəliş bilavasitə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, həmin ildə Ümummilli Liderimiz Heydər Əliyev IV Ümumxalq Pekin qadınlar konfransına hazırlıqla əlaqədar milli komitə yaradılması haqqında Fərman imzaladı. Bu Fərman respublika qadın cəmiyyətlərinin formalaşmasına və yaradıcı axtarışlar aparmasına güclü təkan verdi. Milli Komitə müxtəlif tədbirlər həyata keçirdi. Respublika qadınlarının bir qrupu bu konfransda Azərbaycan qadınlarını ləyaqətlə təmsil etdi.

1998-ci ili xüsusi olaraq Azərbaycan qadınlarının "qızıl ili" adlandırardım. Bəlkə də, bugünkü nailiyyətlərin əsası məhz 1998-ci ildə qoyulmuşdur. Belə ki, Ulu Öndər Heydər Əliyev cəmiyyətdə qadınların durumunu, mövqeyini möhkəmlətmək üçün ölkə tarixində ilk dəfə Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında Sərəncam verdi. Dahi insan Heydər Əliyevin şəxsində dövlətimiz respublikada qadın problemlərinə biganə olmadığını əməli olaraq sübut etdi. Ulu Öndərin "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" Sərəncamı qadın əməyinə, qadınların istedad və potensialına dövlətimizin böyük diqqət və qayğısının ifadəsi idi. 1998-ci il may ayının 21-də Ulu Öndər Heydər Əliyev Prezident sarayında YAP Qadınlar Şurası üzvlərinin bir qrupunu qəbul etdi. Həmin ilin yayında Ulu Öndər Heydər Əliyevin işinin çox və gərgin olmasına baxmayaraq, "Sevil" Qadınlar Məclisinin rayon şöbələri sədrlərini qəbul etdi.

14-15 sentyabr 1998-ci il. 26 illik fasilədən sonra Müstəqil Azərbaycan qadınlarının növbəti qurultayı keçirildi. İki gün davam edən qurultayda respublika qadınlarını 2 mindən çox nümayəndə təmsil edirdi. Onların əksəriyyəti bölmə iclaslarında çıxış edib öz ürək sözlərini cəmiyyətə çatdırmaq imkanı qazandı. Qurultay respublika və dünya qadınlarına müraciət qəbul etdi. Bütün bunların hamısı olduqca səviyyəli, zəruri, ürəklərə və beyinlərə qida verən nurlu mərasimin ayrı-ayrı unudulmaz məqamları idi. Ancaq qurultay nümayəndəsi kimi deyə bilərəm ki, Azərbaycan qadın hərəkatının müstəqil və mütərəqqi bir yolla inkişafının mahir və müdrik təşkilatçısı, dövlətçiliyimizin qüdrətli memarı Heydər Əliyevin qurultayda açıq, səmimi, ümimiləşdirici çıxışı fikir vüsətinə və təhlil keyfiyyətinə görə bu mötəbər məclisin kulminasiya nöqtəsi idi. Məhz bu qurultay Müstəqil Azərbaycan qadınlarının ictimai-siyasi həyatında dönüş mərhələsinin başlanğıcı oldu. Ulu Öndər Heydər Əliyev öz çıxışında **"bu qurultay XX əsrdə Azərbaycanm tarixində ən böyük tarixi hadisələrdən biridir,-dedi-Azərbaycan qadınları bu qurultayla müstəqil Azərbaycanda gələcəyin qadın hərəkatının**

**əsasını qoyublar, qadınların cəmiyyətdə fəallığının, onların cəmiyyət və dövlətin hərəkatında iştirakının əsasını qoyublar".**

Müstəqil Azərbaycanın ilk qadınlar qurultayı bir çox cəhətləri ilə həmişəlik yaddaşlara həkk oldu, onun təsiri sonralar gündəlik həyatımızda özünü təkrar-təkrar aydın büruzə verdi, milli qadın dünyamıza güclü işıq saçdı. Aradan iki il keçdikdən sonra Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan qadınlarını daha bir möhtəşəm, nəhəng Fərmanı ilə sevindirdi. Mən bu Fərmanı ona görə möhtəşəm və nəhəng adlandırıram ki, bu sənəd qadın həyatının, demək olar ki, bütün sahələrini əhatə edirdi. 2000-ci il martın 6-da imzalanmış "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" adlı bu Fərmanda bir çox həyati məsələlər öz parlaq əksini tapmışdır. Bu tarixi sənəddə qadınlarla kişilərin hüquq bərabərliyi, xüsusilə, onların dövlət idarəçiliyi sistemində layiqli səviyyədə təmsil olunmaları, habelə, qadınların vəziyyətinə dair beynəlxalq standartlara cavab verən statistik məlumatların hazırlanması, iqtisadi islahatlar çərçivəsində həyata keçirilən işlərdə gender siyasəti tələblərinin rəhbər tutulması, qadınlarla kişilər arasında bərabər imkanlar yaradılması, qaçqın və məcburi köçkün qadınların məşğulluğu problemlərinin həlli yolları və s. mühüm yer tuturdu. Söz yox ki, bu gün Azərbaycan qadınları müstəqil respublikamızın ictimai-siyasi, sosial və mədəni həyatının bütün sahələrində əzmlə, yüksək ruhla çalışırlar və tam əminliklə söyləmək mümkündür ki, Yeni Azərbaycan Partiyasının Qadınlar Şurası hakim siyasi partiyanın mübariz bir dəstəsidir, dəstəkləyicisidir. Ulu Öndər Heydər Əliyevin partiyasında Azərbaycan qadınlığının yüksək siyasi şüurlu və mübariz hissəsi toplanmışdır. YAP Qadınlar Şurası dövlətimizin və xalqımızın həyatında baş verən bütün taleyüküü proseslərdə yaxından iştirak edir, öz fəaliyyətini vacib, əhəmiyyətli işlərlə davam etdirir. Xalqımız, həmçinin, Onun milli qurtuluş strategiyasını birmənalı olaraq, dəstəklədi. Həmin strategiyanın əsas qayəsi ölkəmizdə sülh və əmin-amanlıq, siyasi sabitlik və tərəqqi yaratmaq idi. Biz analara isə bunlar övladlarımızı böyütmək, ərsəyə gətirmək, xoşbəxt görmək üçün zəruri olan əsas həyati və siyasi şərtlərdir. İlk olaraq, qeyd etmək istəyirəm ki, Azərbaycanda qadınlar tarixin hər bir dönəmində ağır, məsuliyyətli vəzifələrin yerinə yetirilməsindən çəkinməyiblər. Hətta elə qadınlarımız olub ki, onlar siyasi xadim kimi fəaliyyət göstərdikcə, həmin qadınların yüksək diplomatik qabiliyyətləri özünü bütün mənalarda nümayiş etdirib və beləliklə də, Azərbaycan qadınlarının qəhrəmanlıqları tarixin yaddaşına həkk olub. Təhlili baxımdan vurğulamaq mümkündür ki, Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu müasir Azərbaycanın inkişafında kişilərin və qadınların rolunun əhəmiyyətinin dərəcəsi kəskin fərqlənmir, hətta mən deyərdim ki, eynidir. Təbii ki, bu prosesdə qadınların rolunun artırılmasını təmin etmək üçün dövlət səviyyəsində çox mühüm tədbirlər həyata keçirilib və keçirilməkdə davam edir. Bu gün artıq həmin siyasətin daha genişləndirilmiş düsturu özünü, üç istiqamətin birləşdiyi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaranmasında göstərir. Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən 2006-cı ildə yaradılan bu qurum qeyd olunan istiqamətlərdə siyasətin inkişaf etdirilməsini təmin edir. Nəzərə almaq lazımdır ki, qadın ictimai işlə məşğul olmaqla yanaşı, anadır, övladlarını həm tərbiyə, həm də cəmiyyətə təqdim edən valideyndir. Bu baxımdan, qadının fəaliyyət göstərdiyi ictimai sahə ilə ana olaraq üzərinə düşən məsuliyyət paralel şəkildə inkişaf etdirilməlidir, onlar bir-birilərinə mane olmamalı, əksinə, kömək etməlidir. Və məhz bu səbəbdəndir ki, Azərbaycanda qadınların ictimai fəaliyyətlə məşğul ola bilməsi üçün ailə problemlərinin yaranmaması istiqamətində mühüm siyasət aparılır. Biz regionlarımızda bu istiqamətlərdə maarifləndirici proqramlar, tədbirlər həyata keçiririk. Bu, çox vacib, əhəmiyyətli, eləcə də, sözügedən strategiyaya uyğunlaşdırılmış önəmli məsələdir. Həmin strateji xəttin davamı kimi ölkəmizdə gender bərabərliyi siyasəti olduqca uğurla davam edir. Bu uğurlar keçirilən bütün seçkilərdə də özünü qabarıq şəkildə göstərdi, Qadınların parlamentdə, bələdiyyələrdə təmsilçiliyi yüksək faizlə artıb. Təbii ki, bu faktor qadınların ictimai fəaliyyətə marağının artmasının bariz göstəricisidir. Bu gün gender məsələsinə toxunarkən, görərik ki, həmin mövzu yalnız bir neçə ölkəni əhatə etmir. Daha dəqiq desəm, gender məsələsinə bütün dünyada, beynəlxalq aləmdə güclü diqqət yetirilir. Əlbəttə, Azərbaycan dövləti də bu istiqamətdə beynəlxalq təcrübə ilə yaxından tanış olub. Xatırlatmaq istərdim ki, Azərbaycan rəsmi olaraq qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması ilə bağlı konvensiyaya üzvdür, hər 4 ildən bir BMT-nin müvafiq komitəsi qarşısında bununla bağlı hesabatlar dinlənilir. Təsadüfi deyil ki, artıq BMT kimi nüfuzlu bir beynəlxalq təşkilat Azərbaycanı inkişaf edən dövlət kimi görür və bu dövlətdə qadınlara qarşı münasibətin yüksək olmasını təqdir edir. Tarixən Azərbaycan cəmiyyətində ağbirçəklərin, anaların xüsusi hörməti və nüfuzu olub. Yaşadığı zamanın və məkanın xarakterindən asılı olmayaraq, qərinələr boyu əxz etdiyi milli-mənəvi dəyərləri, mental xüsusiyyətləri qoruyub saxlayan, taleyini, gələcəyini inandığı, etimad bəslədiyi siyasi qüvvəyə etibar edən Azərbaycan qadınlarının qabaqcıl hissəsi hər zaman şüurlu surətdə dövlətçiliyin inkişafında əvəzsiz rol oynayır.

Son olaraq, onu da vurğulamaq istərdim ki, cəmiyyətimizdə Prezident İlham Əliyevin qətiyyətli və ardıcıl siyasəti nəticəsində inkişaf və sabitlik hökm sürür və bu əhəmiyyətli amil qarşıdakı illərdə də davam

edəcək. Bu prosesdə Azərbaycan qadınları öz üzərilərinə düşən missiyanı uğurla həyata keçirməyə hər an hazırdılar.

**"Səs".-**2013.-4 aprel.-N 57.-S.5.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN GƏNCLİYİ

**Həmzə CƏFƏROV**
Tarix elmləri doktoru, professor

*Hər hansı bir xalq kimi Azərbaycan xalqı üçün də mühüm tarixi nailiyyət olan dövlət müstəqilliyinin qazanılmasından böyük hadisə yoxdur. Müstəqil dövlətçilik çoxəsrlik Azərbaycan tarixinin ən böyük hadisəsidir. XX əsrin əvvəllərində Azərbaycanda qazanılmış birinci dövlət müstəqilliyi bütün türk-müsəlman dünyasının tarixində dönüş mərhələsi yaratmışdı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli istiqlalının acı taleyi müstəqilliyin qorunub saxlanması və möhkəmləndirilməsinin onu qazanmaqdan da zəruri olması faktını meydana qoymuşdu. Azərbaycan xalqı üçün ikinci dəfə dövlət müstəqilliyinə nail olmaq şansının ideya rəhbəri də, bu dövlətin xilaskarı da, müstəqilliyin möhkəm əsaslarını yaradıb onu əbədi bir sərvətə çevirən də görkəmli dövlət xadimi Heydər Əliyev oldu.*

Hakimiyyətə ikinci dəfə qayıtdıqdan sonra Heydər Əliyevin çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən biri də gənc nəslə diqqət və qayğının artırılması, yeniyetmə və gənclərlə bağlı dövlət siyasətinin əsas prinsiplərinin müəyyənləşdirilməsi, respublikamızın sosial-iqtisadi, ictimai-siyasi həyatında gənclərin fəal iştirakının təmin olunması, gənclərin sosial-mənəvi ehtiyaclarının ödənilməsi, onların gələcəyin layiqli vətəndaşları kimi formalaşması üçün münbit şəraitin yaradılması olub. Bu da təbiidir. Çünki gənclər xalqın ümidi, onun inkişafının və yüksəlişinin əsas meyarı və barometridir. Hər bir cəmiyyətin maddi-mənəvi tərəqqisi gənclər siyasətinin düzgün qurulmasından, gənclərin sosial, psixoloji vəziyyətindən, fəaliyyət şəraitindən bilavasitə asılıdır.

90-cı illərin əvvəllərində sovet imperiyasının, onun məhəkdaşı olan kommunist ideologiyasının süqutu ilə yeganə təşkilatı olan komsomolun fəaliyyətinə son qoyuldu.

Müstəqilliyin ilk dövrlərində əhalinin bütün təbəqələri, sosial qrupları arasında müşahidə olunan milli oyanış, sosial-siyasi fəallıq gənclərdən də yan keçmədi. «Sovet imperiyasına qarşı mübarizənin, o cümlədən Qarabağ hadisələri ilə bağlı təşəkkül tapmış xalq hərəkatının ön sıralarında gənclərimiz getmişlər. 1988-ci ildə erməni ekstremistlərinin Azərbaycana qarşı başladıqları hərbi təcavüzü dəf etmək üçün ilk özünümüdafiə dəstələrinin yaradılmasında və fəaliyyət göstərməsində gənclərin böyük xidmətləri olub».

Azərbaycan gəncliyində yeni prinsiplər, mənəvi dəyərlər, həyata yeni baxışlar sistemi formalaşmağa başladı. Məqsəd və vəzifələrinə, fəaliyyətin istiqamətlərinə, sosial tərkibinə görə bir-birindən fərqli, yeni, müstəqil gənclər təşkilatları yaranmağa başladı. İlk gənclər təşkilatları əsasən kortəbii surətdə, respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda xalq hərəkatının təsiri altında təşəkkül tapmağa başlamışdılar. Lakin «1991-1993-cü illərdə respublikada hökm sürən hərc-mərclik şəraitində təşəkkül tapmış gənclər təşkilatlarının çoxunda siyasiləşmə, populizm meyilləri özünü büruzə verdi. Bu təşkilatların bir çoxu o dövrdə fəaliyyət göstərən müxtəlif yönlü siyasi partiya və qurumların təsiri altına düşdü. Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesinin həyata keçirilməsi vəzifələri gənclərin ayrı-ayrı siyasi partiya və qurumların deyil, ümummilli dövlət mənafeləri əsasında səfərbər olunması, vahid gənclər siyasiətinin hazırlanıb həyata keçirilməsi zərurətini ortaya atdı.

Təəssüf ki, həmin dövrdə Azərbaycanda təzahür edən xaos və özbaşınalıqlar, hakimiyyət uğrunda mübarizələr və bütün bunların məntiqi nümunəsi olan Qarabağ savaşında acınacaqlı məğlubiyyət və torpaqlarımızın işğalı gənclər arasında bədbinliyin artmasına, vətənpərvərlik və vətəndaşlıq hisslərinin aşılanmasına, narkomaniya, cinayətkarlıq və digər neqativ hallarının çoxalmasına şərait yaratmışdı. Təbii ki, belə bir şəraitdə cəmiyyətin aparıcı qüvvəsi olan gənclərlə bağlı hər hansı bir dövlət siyasətinin aparıldığından söhbət gedə bilməzdi.

Müstəqil Azərbaycan Respublikasında gənclərlə iş sahəsində yaranmış bu boşluq yalnız 1993-cü ilin iyununda Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra aradan qaldırılmağa başlandı və gənc nəslə diqqət və qayğı dövlətin ən mühüm fəaliyyət sahələrindən birinə çevrildi. Məhz 1993-cü ildən başlayaraq Azərbaycanda dövlət gənclər siyasəti təşəkkül tapmağa başladı.

1993-cü ilin 22 sentyabrında Azərbaycan Prezidentinin səlahiyyətlərini icra edən, Respublika Ali Sovetinin sədri, ümummilli lider Heydər Əliyev gənclərin bir qrupu ilə görüşmüş, Azərbaycan gəncliyini ölkənin ictimai-siyasi həyatında daha fəal iştirak etməyə, ölkənin taleyinə biganə qalmamağa çağırmışdı.

Gənclərlə iş sahəsində dövlət siyasətinin mühümlüyünü nəzərə alaraq, Azərbaycan Prezidenti ümummilli lider Heydər Əliyev 1994-cü ilin iyul ayının 26-da bu siyasəti həyata keçirəcək yeni dövlət quruluşunun – Gənclər və İdman Nazirliyinin yaradılması haqqında fərman imzaladı. Yeni nazirliyin qarşısına qoyulan əsas məsələlərdən biri böyüməkdə olan nəslin Vətənə, xalqa məhəbbət ruhunda tərbiyə olunması,

gənclərin sosial-iqtisadi problemlərinin həlli, mənəvi ehtiyaclarının ödənilməsi, gənc nəslin hərtərfli inkişafı üçün şəraitin yaradılması olmuşdur. Respublikada çoxsaylı gənclər təşkilatlarının fəaliyyət göstərdiyi bir şəraitdə onların işini əlaqələndirmək zərurəti getdikcə özünü daha çox göstərirdi. Bu işi təmin etmək məqsədilə Prezident Heydər Əliyevin xüsusi fərmanı ilə 1996-cı ilin 2 fevralında keçirilmiş Müstəqil Azərbaycan Gənclərinin I Forumunun xüsusi əhəmiyyəti oldu. Forumda gənclərin bütün kateqoriyalarını: tələbələri, hərbiçiləri, jurnalistləri, siyasi partiya və gənclər təşkilatlarını təmsil edən 2 mindən çox nümayəndə iştirak etmişdi. Forumun işində respublika Prezidenti başda olmaqla bütün dövlət orqanlarının rəhbərləri iştirak etmiş, gənclərin irad və təkliflərini dinləmiş, bütün Azərbaycan gəncliyinin problemlərini yaxından öyrənib.

Forumda böyük nitq söyləyən Azərbaycan Prezidenti gəncliyin qarşısında çox böyük vəzifələr durduğunu, onun əsas vəzifəsinin isə özünü Müstəqil Azərbaycan Respublikasının inkişafına, müstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olduğunu qeyd edib.

Öz çıxışında ümummilli lider, həmçinin, gənclərə Azərbaycan Konstitusiyasını öyrənməyi, onun prinsiplərinə riayət etməyi tövsiyə etdi. Prezident eyni zamanda ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, işğal olunmuş torpaqlarımızın azad olunması, dövlət sərhədlərimizin bərpa olunması Azərbaycan gənclərinin mühüm vəzifəsi olduğunu onların nəzərinə çatdırdı. Bu vəzifənin yerinə yetirilməsi üçün Ali Baş Komandan gənclər arasında hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, Azərbaycan ordusuna, onun daha da möhkəmləndirilməsinə diqqəti artırmağı tələb etdi və vurğuladı ki, gənclər təşkilatının, gənclərin əsas vəzifəsi hər bir gənci, hər bir Azərbaycan övladını orduya hazırlamaqdan ibarət olmalıdır. «Hər bir gənc orduya səfərbər olmağa hazır olmalı və orduda xidmət etməyi özünə şərəf bilməlidir». Prezidentimiz bu sözləri müasir Azərbaycan gənclərinin həyat devizinə çevirdi.

Hələ SSRİ-nin mövcudluğu dövründə Azərbaycan SSR-nin rəhbəri işləyərkən ümummilli lider Azərbaycanın gələcəyi haqqında düşünmüş, onun yüksək ixtisaslı zabit kadrlara ehtiyacını nəzərə alaraq, bir sıra tədbirlər görmüşdü. 1972-ci ildə onun bilavasitə təşəbbüsü və təkidi ilə Bakıda xüsusi hərbi məktəb – Cəmşid Naxçıvanski adına məktəb açılmışdı. Azərbaycan milli ordusunun yaranmasında və təşəkkül tapmasında bu məktəb çox böyük xidmətlər göstərmiş, hər il onun 800-900 müdavimi Sovet İttifaqının ali hərbi məktəblərinə göndərilirdi. İndi ordumuzda xidmət edən zabitlərin çoxu həmin dövrdə hazırlanan zabitlərdir.

Təhsilə və elmə yiyələnməyin vacibliyini xüsusi vurğulayan Heydər Əliyev göstərir ki, bizim gənclərimizin vəzifəsi təhsil almaq və müasir tələblərə uyğun olan səviyyəyə qalxmaqdır. Gənclərimizin qarşısında duran əsas vəzifələrdən birinin də mənəvi tərbiyə məsələsinin olduğunu qeyd edən Prezident gəncləri ümumbəşəri dəyərləri, Azərbaycan xalqının milli-mənəvi dəyərlərini dərindən mənimsəməyə çağırmış və göstərmişdi ki, milli dəyərlərimizi, milli ənənələrimizi, dilimizi, dinimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Öz çıxışında dövlət başçısı vətənpərvərlik məfhumunun mahiyyətini açıb göstərmişdi: «Bu, sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik».

Dövlət başçısı öz bilik və bacarıqlarını reallaşdıra bilmələri üçün gənclərə şərait yaratmağı, dövlət quruculuğu prosesində onların potensialından daha səmərəli istifadə etməyi bütün dövlət orqanlarına tövsiyə edirdi. Bunun konkret nəticəsi kimi gənc kadrların dövlət idarəetmə strukturlarında məsul vəzifələrə irəli çəkilməsi müşahidə olunmağa başladı.

İndi ölkəmizin müxtəlif sahələrində – yerli icra hakimiyyəti orqanlarında, bələdiyyələrdə, nazirlik və idarələrdə yüzlərlə gənc öz vəzifələrini layiqincə yerinə yetirirlər. İdarə başçıları, nazir müavinləri, nazirlər, millət vəkilləri, siyasi xadimlər arasında Azərbaycan gəncliyini ləyaqətlə təmsil edən çoxlu şəxslər var.

1 fevral 1997-ci ildə Azərbaycan Respublikasının Prezidenti gənclər təşkilatlarının nümayəndələri ilə görüşündən sonra, onların xahişini yerinə yetirərək 2 fevralın Gənclər Günü elan edilməsi haqqında fərman imzalayıb. Həmçinin gənc istedadların «Qızıl kitabı», gənc istedadlara yardım fondu yaradılmışdır. Bütün bunlar ümummilli liderin gənclərə göstərdiyi qayğının yalnız cüzi hissəsidir.

Onillik hakimiyyəti dövründə mərhum prezidentimiz özünün humanistlik prinsiplərinə daim sadiq qalmış, gənc məhbuslar, ordudan fərarilik etmiş insanlara qarşı bir neçə dəfə amnistiya elan etmiş, onlara ölkəmizin layiqli vətəndaşları olmaq üçün imkan yaradıb.

1999-cu ilin mart ayının 2-3-də Azərbaycan gənclərinin ikinci forumu keçirildi. O, birinci forumdan keçən 3 il ərzində görülmüş işlərə yekun vurmaqla yanaşı müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə düşən vəzifələri müəyyənləşdirdi, ictimai-siyasi həyatda gənclərin daha fəal iştirakı üçün şəraitin yaradılması, dövlət orqanlarının diqqətini gənclik problemlərinin həllinə yönəltməklə bağlı tövsiyələr verdi.

Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyəti dövründə dövlət gənclər siyasətinin normativ hüquqi bazasının yaradılması və təkmilləşdirilməsi istiqamətində də əməli addımlar atılıb.

Azərbaycan Prezidenti tərəfindən 1999-cu ilin iyul ayının 29-da imzalanmış «Dövlət Gənclər Siyasəti» haqqında fərmanında və fərmanla təsdiq edilmiş geniş tədbirlər planında Azərbaycanda gənclər hərəkatının əsas inkişaf mərhələləri, dövlət gənclər siyasətinin əsas istiqamətləri, bu siyasətin həyata keçirilməsi sahəsində mövcud olan problemlər və onların həlli üçün konkret tədbirlər öz əksini tapıb.

Bu fərman ölkəmizin ictimai-siyasi həyatında gənclərin daha da fəal iştirakı üçün şəraitin yaradılması, dövlət orqanlarının diqqətinin gənclik problemlərinin həllinə yönəldilməsi baxımından tarixi bir sənəddir və Azərbaycan gənclər təşkilatlarının fəaliyyət proqramı kimi dönmədən həyata keçirilir. Fərmandakı tədbirlər planının icrası ilə bağlı müxtəlif dövlət orqanları – nazirliklər, dövlət komitələri tərəfindən görülən işlər hər ilin sonunda Prezidentə təqdim edilir.

Fərmana uyğun olaraq Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində Gənclərin problemləri üzrə Elmi Araşdırmalar Mərkəzi, Respublika Uşaq İstirahət və Sağlamlıq Mərkəzi yaradılmış, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi, istedadlı gənclərin üzə çıxarılması, sosial müdafiəyə ehtiyacı olan gənclərin problemlərinin həlli, bədən tərbiyəsi və idmanın inkişafı, beynəlxalq əməkdaşlığın genişləndirilməsi, gənclərin idarəetmə strukturlarında məsul vəzifələrə irəli çəkilməsi sahəsində səmərəli işlər görülüb.

**“Palitra”.-**2013.-6 aprel.-№59.-S.7.

## HEYDƏR ƏLİYEV – İSTİQLAL CARÇISI

**Hadi RƏCƏBLİ**
Milli Məclisin komitə sədri

XX əsrin 90-cı illərinin əvvəllərində ən böyük arzusunu – dövlət müstəqilliyinin bərpasını reallaşdırmaq üçün Tanrı xalqımıza şans verdi. Yetmiş il dünyanı lərzəyə salan bir imperiyanın tərkibindən çıxaraq öz müstəqilliyinə nail olmaq isə elə də asan başa gəlmədi. Ölkəmizi müstəqilliyə aparan yol 20 Yanvar faciəsindən keçdi. SSRİ rəhbərliyi xalqın azadlıq arzusunu boğmaq üçün, hətta ordunun gücündən istifadə edərək qan tökməkdən belə çəkinməsə də, öz istəyinə çata bilmədi – Azərbaycan dövlət müstəqilliyini bərpa etdi. Bərpa olunan sadəcə dövlət müstəqilliyimiz deyil, həm də XX əsrin əvvəllərində cəmisi 23 ay ömrü olan Azərbaycan Xalq Cümhuriyyətinin dövlət atributları oldu. Azərbaycanın dövlət müstəqilliyinə nail olması ilə yanaşı, azadlıq uğrunda mübarizənin əhəmiyyəti bir də o oldu ki, xalqımız həm də özünün Liderini bir daha təsdiq etdi və yenidən qazandı. O lideri ki, hələ SSRİ kimi nəhəng bir imperiyanın sərt qanunlarının hökm sürdüyü bir vaxtda üçrəngli bayrağımızı Naxçıvanda rəsmi şəkildə yüksəltdi. Xalqın təkidli tələbi ilə 1993-cü ildə ikinci dəfə respublikamıza rəhbərliyə qayıtdıqdan sonra isə dövlət müstəqilliyimizin qorunub saxlanılması, dövlət atributlarımızın qürur mənbəyimizə çevrilməsi üçün böyük işlər gördü. Dünya birliyində öz mövqeyini gündən-günə möhkəmləndirən, bütün sahələrdəki dinamik inkişafı sayəsində bölgədə söz sahibinə çevrilən Azərbaycanın memarı Ümummilli liderimiz, Ulu öndərimiz, istiqlal carçısı böyük azərbaycanlı Heydər Əliyevdir.

**Qanla gələn istiqlal**

Xalqımıza qarşı törədilən qanlı 20 Yanvar faciəsi Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tariximizə qəhrəmanlıq səhifəsi kimi daxil olub. Bu gün 20 Yanvar qurbanlarının uyuduğu Şəhidlər Xiyabanı ən müqəddəs zirvə kimi xalqımızın qürur mənbəyinə çevrilib. Həmin gecə yaralananlar isə istiqlal mücahidləri kimi hərtərəfli qayğıyla əhatə olunublar, sosial müdafiələri təmin olunub. Və aradan keçən illər imkan verib ki, o müdhiş gecədə baş verənlərə həqiqətin gözü ilə baxaraq hüquqi qiymət verilsin.

Müstəqilliyə can atan Azərbaycan xalqının mübarizliyini, əyilməzliyini, məğrurluğunu və azadlıq uğrunda mübarizə əzmini bir daha dünyaya bəyan edən və böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən qanlı 20 Yanvar gecəsi Mixail Qorbaçov başda olmaqla cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyərək öz azadlığına, müstəqilliyinə can atan insanların etiraz səsiydi və bu etirazı boğmaq üçün geniş xalq kütlələrinə qarşı Sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməmiş faciəyə gətirib çıxardı. Həmin gecə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları şəhid oldular. Sovet hərb maşınının Azərbaycan xalqına qarşı həyata keçirdiyi bu qətllər bəşər tarixində insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biridir.

Xalqımıza qarşı ağlasığmaz bir faciə, bəşəri cinayət törədilməsinə baxmayaraq, Azərbaycanın o vaxtkı rəhbərliyinin mövqeyi cəsarətsizlik və siyasi təslimçilikdən başqa bir şey deyildi. O vaxt Azərbaycan xalqı adından yeganə bəyanat Bütün Qafqazın Şeyxi, Şeyxülislam Hacı Allahşükür Paşazadə tərəfindən verilmişdi. Kəskinliyi ilə seçilən həmin bəyanat BMT-yə, dünya dövlətlərinə və digər beynəlxalq təşkilatlara ünvanlanmışdı və 20 Yanvar faciəsinin törədilməsinin bütün məsuliyyətinin Kremlin və bilavasitə M.Qorbaçovun üzərinə düşdüyü vurğulanırdı. Dünyada analoqu olmayan bu faciə ilə bağlı digər bir bəyanatı isə o ərəfədə Moskvada yaşayan Ulu öndər Heydər Əliyev verdi. İmperiyanın paytaxtında – bu faciənin törədilməsinin planı cızılmış bir şəhərdə dünyanın onlarla aparıcı KİV nümayəndələrinin qarşısında verilən bu bəyanat beynəlxalq aləmdə böyük əks-səda doğurdu.

**O, xalqı ilə birgə oldu**

Heydər Əliyev xalqın səsinə səs verməklə sübut etdi ki, bu ağır günlərdə Azərbaycanda – öz xalqı ilə birlikdə olmasa da, bu ağrını xalqla bir yaşayır. Moskvada xüsusi nəzarət altında olduğunu, özünün və ailə üzvlərinin həyatını təhlükə qarşısında qoyduğunu bilə-bilə, Ümummilli liderimiz 1990-cı il yanvarın 21-də təkcə oğlu deyil, həm də yaxın silahdaşı, hər bir çətin məqamda atasının yanında olan İlham Əliyevlə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək Azərbaycan xalqına qarşı Sovet ordusunun etdiyi təcavüzü pislədi, faciəni törədənləri, ayrıca da M.Qorbaçovu kəskin ittiham etdi, qoşunların dərhal Bakıdan çıxarılması tələbini irəli sürdü. Bu gün bəlkə də kimlərəsə bütün bunlar asan görünə bilər. Amma SSRİ-nin sərt qanunlarının hökm sürdüyü o dövrdə dünyanın ən böyük dövlətlərindən birinin rəhbərini elə onun öz vətənində belə kəskin tənqid etmək, doğrudan da, böyük cəsarət tələb edirdi. Ulu öndərimiz Heydər Əliyevin və möhtərəm İlham Əliyevin bu addımları Vətən və xalq qarşısında bir vətəndaşlıq məsuliyyətinin nümayişi, Vətənə

məhəbbət və sədaqətin nümunəsi idi. Və həmin bəyanatı 20 Yanvar faciəsinə verilən ilk siyasi qiymət kimi də qəbul etmək olar.

Heydər Əliyevin Moskvada səsləndirdiyi bu bəyanat, eyni zamanda, artıq Azərbaycan tarixində yeni siyasi dövrün başlanmasının anonsu idi. Onun bu istiqamətdə atdığı digər sərt addım 1990-cı il iyulun 19-da SSRİ Nazirlər Sovetinin partiya təşkilatına ünvanladığı ərizədir. Ulu öndər Kommunist Partiyasının sıralarından çıxmasına dair yazdığı bu ərizədə kommunist rejiminin ölkəni uçuruma apardığını, SSRİ-nin dağılmasının labüdlüyünü açıq şəkildə bəyan edirdi. 20 Yanvar faciəsi ilə bağlı isə bunları bildirirdi: "Bu antihumanist, konstitusiyaya zidd hərəkəti ittiham edərkən Sov.İKP və Azərbaycan KP MK-nın bu cinayətin üstünü açacağına və günahkarları üzə çıxaracağına ümid edirdim. Artıq yarım il keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil".

20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməməsi daim Heydər Əliyevi düşündürürdü. 1993-cü ilə qədər bu istiqamətdə faktiki olaraq heç bir iş görülməmişdi. 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə Prezident Heydər Əliyev bu barədə belə deyirdi: "…Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər". 20 Yanvar faciəsinin günahkarlarının cəzalandırılması, bu faciəyə siyasi-hüquqi qiymət verilməsi yönündə apardığı işlərlə yanaşı, Heydər Əliyev şəhid ailələrini və əlil olanları daim diqqətdə saxlayırdı. 20 Yanvar faciəsinin ildönümlərində Şəhidlər Xiyabanını ziyarət edir, şəhid ailələrinin problemləri ilə yaxından tanış olur və tövsiyə edirdi: "…Xalqımız bundan tarixi nəticə çıxarmalıdır. Biz gərək heç vaxt əyilməyək, heç vaxt sınmayaq. Bilirsiniz, millətin mənafeyi hər bir insanın həyatından üstün olmalıdır". 1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qəbul edilən qərarda 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi.

20 Yanvar hadisələri zamanı həlak olanların xatirəsinin əbədiləşdirilməsi istiqamətində də Ümummilli liderimiz mühüm tədbirlər həyata keçirdi. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra ilk olaraq Şəhidlər Xiyabanını ziyarət etdi və tapşırıq verdi ki, qısa müddətdə bütün şəhid məzarlarının üstü götürülsün və burada memorial kompleks ucaldılsın. Məhz Onun Sərəncamı ilə 20 Yanvar Ümumxalq hüzn günü elan olundu. Şəhidlər Xiyabanı xalqımızın müqəddəs and yerinə, ziyarətgahına çevrildi. Şəhid ailələri dövlət qayğısı ilə əhatə olundu. 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsini və müavinət təminatını da daim diqqət mərkəzində saxladı. Azərbaycan Prezidentinin 17 yanvar 2000-ci il tarixli Fərmanı ilə 20 Yanvar təcavüzü zamanı həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına "20 Yanvar şəhidi" fəxri adı verildi, "1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında" 2003-cü il 15 yanvar tarixli Sərəncama əsasən isə, əlil olmuş şəxslərə verilən aylıq müavinət artırıldı və bu iş davamlı olaraq həyata keçirilir.

**Tükənməyən qayğılar**

Müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həlli istiqamətində bünövrəsini Ümummilli liderin qoyduğu işlər bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, bu yöndə böyük tədbirlər həyata keçirilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir. Ölkənin iqtisadi durumunun yüksəlməsi özünü bu qəbildən olan insanların həyat və məişətində daha qabarıq göstərir…

Prezident İlham Əliyevin Sərəncamına əsasən, Şəhidlər Xiyabanı vahid kompleks kimi yüksək səviyyədə yenidən qurularaq abadlaşdırıldı.

2006-cı il yanvarın 19-da dövlət başçısının "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanı ilə 20 yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin xüsusi təqaüdü təsis edildi.

Ölkə başçısının Fərmanı ilə "20 Yanvar şəhidi" fəxri adı almış 140 nəfər şəxsin 180 nəfər ailə üzvünə hazırda ayda 300 manat məbləğində Prezident təqaüdü verilir. 2006-cı il yanvarın 1-dən qüvvəyə minən "Əmək pensiyaları haqqında" Qanuna əsasən isə 20 Yanvar şəhidlərinin əmək pensiyasını alan hər bir ailə üzvünə aldığı pensiyadan başqa əlavə ödəniş verilir.

Heydər Əliyev Fondunun prezidenti, millət vəkili, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva da 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, faciə qurbanlarının ailələrinin problemlərinin həlli, sağlamlığının bərpası istiqamətində mühüm işlər görür.

…Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri Leyla Əliyevanın təşəbbüsü ilə elan edilən "Xocalıya ədalət" kampaniyası çərçivəsində reallaşdırılan tədbirlər isə

beynəlxalq aləmdə böyük əks-səda doğurub. Qarabağ münaqişəsi, xalqımızın tarixi yaddaşı ilə bağlı kitablar, bukletlər, albomlar nəşr olunub, filmlər çəkilib ki, bu da Azərbaycan həqiqətlərinin, xalqımıza qarşı törədilən ağlasığmaz cinayətlərin dünya ictimaiyyətinə çatdırılmasında, həmən cinayətlərə hüquqi-siyasi qiymətin verilməsində böyük əhəmiyyət kəsb edir…

**Bir dəfə yüksələn bayraq…**

Bütün dünyada hər bir xalqın güvənc və qürur yeri, onun mövcudluğunun, öz dövlətini qurub ona sahib çıxa bilmək bacarığının göstəricisi və sübutu olan ən müqəddəs rəmzlərindən biri bayraqdır. Bayraq hər bir xalqın və dövlətin azadlıq mübarizəsinin və milli kimliyinin göstəricisidir. Xalqımızın öz azadlığı, müstəqilliyi və istiqlalı uğrunda mübarizəni tərənnüm edən üçrəngli bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da qəbul olunsa da, 1920-ci ilin aprelində Xalq Cümhuriyyətinin süqutundan sonra bu bayraqdan imtina edildi. Yalnız 1991-ci ildə Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra yenidən üçrəngli bayrağımız ölkəmizin hər bir vətəndaşı üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrildi.

Burada qürur duyulası əsas məqam isə ondan ibarətdir ki, üçrəngli bayrağımız hələ Azərbaycan respublikasının dövlət müstəqilliyinin bərpa olunmasından əvvəl xalqımızın böyük oğlu Heydər Əliyev tərəfindən Naxçıvanda ucaldılmışdı. Belə ki, 1990-cı il iyulun 22-də Naxçıvana və bununla da yenidən böyük siyasətə qayıdan Heydər Əliyevin Sədrliyi ilə həmin ilin noyabr ayının 17-də Naxçıvan Ali Məclisinin sessiyası üçrəngli bayrağımızın Naxçıvan MR-in dövlət bayrağı olması barədə tarixi qərar qəbul etdi. Həmin tarixi sessiyada qəbul olunmuş qərarda, həmçinin, təklif edilirdi ki, Azərbaycanın dövlət rəmzlərinə – bayrağa, gerbə və himnimizə milli-tarixi ənənələrə uyğun olaraq yenidən baxılsın.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edildikdən sonra Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzləri bərpa edildi, "Azərbaycan Respublikasını Dövlət bayrağı haqqında" Qanun qəbul olundu. Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra ölkədə ictimai-siyasi sabitliyi təmin etməklə yanaşı, ölkədəki separatçı meyillərin qarşısını qətiyyətlə alaraq Azərbaycanın üçrəngli bayrağının bütün bölgələrdə dalğalanmasını təmin etdi. 1995-ci ildə ümumxalq referendumu ilə qəbul olunmuş Azərbaycan Konstitusiyasında isə üçrəngli bayrağımız dövlət rəmzi kimi bir daha təsbit edildi. "**Azərbaycanın bayrağı, sadəcə, bayraq deyil. O bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Gərək hər bir evdə Azərbaycan dövlətinin bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun**", – deyən Ulu öndər Heydər Əliyevin 1998-ci il 13 mart tarixli "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında" Sərəncamı bu baxımdan mühüm əhəmiyyət daşımışdır.

Ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev də Azərbaycanın milli dövlət atributlarını daim uca tutur. Onun rəhbərliyi altında dövlət bayrağı ilə bağlı qanunvericilik bazası daha da təkmilləşdirilərək 2004-cü il iyunun 8-də "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu.

Azərbaycan Respublikasının Dövlət bayrağı ilə bağlı həyata keçirilən ən mühüm tədbirlərdən biri isə Dövlət bayrağı gününün təsisi edilməsi oldu. Belə ki, Azərbaycan Respublikasının Dövlət bayrağının ilk dəfə rəsmi surətdə 1918-ci il noyabrın 9-da qəbul edildiyini nəzərə alan möhtərəm Prezident İlham Əliyev, eyni zamanda, Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmət və ehtiramı təmin etmək məqsədilə 2009-cu il noyabrın 17-də "Azərbaycan Respublikasının Dövlət bayrağı gününün təsis edilməsi haqqında" Sərəncam imzaladı. Bu Sərəncama əsasən hər il noyabr ayının 9-u Azərbaycan Respublikasının Dövlət bayrağı günü kimi qeyd edilir.

Azərbaycan Respublikasının Dövlət bayrağının Azərbaycan vətəndaşlarının milli həmrəyliyinin, vahid məfkurə ətrafında sıx birləşmələrinin başlıca amillərindən biri olduğunu nəzərə alan möhtərəm Prezident İlham Əliyev onun təbliğini daha da genişləndirmək üçün 2007-ci il noyabrın 17-də Bakı şəhərində, Xəzərin sahilində Dövlət Bayrağı Meydanının yaradılması haqqında Sərəncam imzaladı. Bu Sərəncam həm də cənab Prezidentin dövlət atributlarına olan yüksək ehtiramının təcəssümüdür. Elə həmin il dekabrın 30-da Bakının Bayıl qəsəbəsində Prezident İlham Əliyevin iştirakı ilə Dövlət Bayrağı Meydanının təməli qoyuldu. Paytaxtımızın müxtəlif nöqtələrindən görünə bilən yerdə xüsusi layihə əsasında ucaldılan Bayraq Meydanının tikinti işlərini xarici və yerli mütəxəssislər apardılar.

**Dilimiz – sərvətimiz**

Hər bir xalqın varlığının yeganə təminatçısı kimi onun milli-mənəvi dəyərlərinin qorunub saxlanılmasında, inkişaf etdirilməsində, əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə ötürülməsində dil mühüm rol oynayır. Azərbaycan dili də xalqımızın milli varlığını müəyyənləşdirən başlıca amillərdəndir və dövlət rəmzlərimiz olan himn, gerb və bayraq kimi müqəddəsdir. Ulu öndərimiz deyirdi: "**İnkişaf etmiş zəngin dil**

**mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir**".

Bu gün müstəqil ölkəmizin rəsmi dövlət dili Azərbaycan dilidir və heç kəsə sirr deyil ki, bu, birbaşa Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Əhalisinin əksəriyyəti azərbaycanlılar olmasına baxmayaraq, Sovet hakimiyyəti illərində, xüsusilə də ötən əsrin 70-ci illərinədək respublikamızda Azərbaycan dili ikinci dərəcəli dil statusunda idi və bu səbəbdən də qorunması və daha da zənginləşdirilməsi qeyri-mümkün idi. Bu məqsədlə dövlət səviyyəsində heç bir tədbir görülmürdü.

O vaxtlar milli dillər sıxışdırılır, rus dilinin hüquqlarının genişləndirilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirilir, SSRİ məkanında "vahid dil" siyasəti təbliğ olunurdu və bu məqamda kiminsə ana dili məsələsinin təbliği ilə məşğul olması çox riskli iş idi və insanın həyatı bahasına başa gələ bilərdi. Yerlərdə dil məsələsini gündəmə gətirənləri təhlükəli tale, sürgün həyatı gözləyirdi. Ancaq bu çətinliklərə baxmayaraq, o dövrdə Azərbaycan Respublikasına rəhbərlik edən Heydər Əliyev bu məsələdə güzəştə getmir, qətiyyətlə öz mövqeyini ortaya qoyurdu.

1977-ci ilin dekabrında SSRİ Konstitusiyasının qəbulundan sonra müttəfiq respublikaların Konstitusiya layihəsi ümumxalq müzakirəsinə verildi. Digər müttəfiq respublikalarda olduğu kimi, Azərbaycan SSR-in Konstitusiya layihəsində də dövlət dili özünün tam əksini tapmamışdı, yəni Azərbaycan dilinin hansı status daşımasıyla bağlı məsələyə toxunulmurdu.

Doğrudur, 1978-ci ilin yazında respublikada layihənin ümumxalq müzakirəsi keçirilirdi, amma kommunist ideologiyasının hakim olduğu bir vaxtda bu müzakirələr əsasən formal xarakterdə olurdu. Bununla belə, milli ruhlu ziyalılar layihəyə Azərbaycan dilinin dövlət dili kimi təsbit olunduğu maddənin salınmasında təkid edirdilər. SSRİ rəhbərləri isə müxtəlif bəhanələrlə diqqəti bu məsələdən yayındırmağa çalışırdılar. Xalqımız üçün taleyüklü bu məsələnin həllində də Heydər Əliyev cəsarəti, Heydər Əliyev qətiyyəti öz sözünü dedi. Bu böyük şəxsiyyət bütün karyerasını və həyatını risk altında qoyaraq bu istiqamətdə daha kəskin və cəsarətli mübarizəsini inadla davam etdirərək SSRİ-nin o vaxtkı rəhbəri L.İ.Brejnevlə danışdıqdan sonra nəhayət ki, istəyinə nail oldu – Ümumxalq müzakirəsinə verilmiş Azərbaycan Respublikası Konstitusiya layihəsinin 73-cü maddəsinə belə bir təklif olundu: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir".

Ümummilli liderimizin bu əvəzsiz və gərgin zəhməti öz bəhrəsini verdi və ümumxalq səsverməsindən sonra Azərbaycan Konstitusiyasında Azərbaycan dili dövlət dili statusu aldı.

Bu gün hər bir Azərbaycan vətəndaşı böyük minnətdarlıq hissi ilə etiraf edir ki, Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır və Onun xalq qarşısında ən böyük xidmətlərindən biri kimi tariximizin qızıl səhifəsini təşkil edir. Bu, həm də Ulu öndər tərəfindən gələcək müstəqil dövlətçiliyin milli atributlarından birinin qorunması demək idi. Bu cəsarətli addımdan sonra Ulu öndərin bilavasitə rəhbərliyi ilə Azərbaycan dilinin inkişafı və qorunması sahəsində bir sıra mühüm tədbirlər həyata keçirildi. O zaman Heydər Əliyev deyirdi: "Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir".

**Dilimizin dadı – əsl adı, öz adı**

Azərbaycan müstəqillik əldə etdikdən sonra qısa müddətdə hakimiyyətdə olan AXC-Müsavat hakimiyyətinin səriştəsiz idarəetməsi bir sıra sahələrdə olduğu kimi, dil sahəsində də yeritdikləri siyasət ölkəmizin müstəqilliyinə təhlükə törədirdi. Dövlət dilinin dəyişdirilərək "türk dili" adlandırılması heç bir məntiqi əsasa söykənmirdi. Bu addım, hətta Azərbaycanı bir dövlət, xalq kimi xəritədən birdəfəlik silə bilərdi. 1992-ci ilin dekabrında "Dövlət dili haqqında" Qanun qəbul edilərək Azərbaycanda dövlət dilinin "Türk dili" olması barədə qərar qəbul edilməsi, orta məktəblərdəki ana dili dərsliklərinin "Türk dili" adlı dərsliklərlə əvəzlənməsi kökündən yanlış bir addım idi.

Əslində AXC-Müsavat hakimiyyətinin qəbul etdiyi bu qanunun hüquqi qüvvəsi də yox idi. Belə ki, həmin ərəfədə respublikada 1978-ci ildə qəbul olunmuş Konstitusiya qüvvədə idi və həmin Konstitusiyanın 73-cü maddəsi hüquqi qüvvəsini itirməmişdi. 1992-ci ildə Milli Məclisin dövlət dilinin türk dili olması ilə bağlı qərarının qəbulu zamanı ciddi hüquqi pozuntulara yol verilmişdi.

1993-cü ildə Heydər Əliyev yenə də Azərbaycan dilinin işlənməsi və inkişaf etdirilməsi məsələsinə xüsusi önəm verərək Azərbaycan dilini yenidən özümüzə qaytardı. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif təkliflər olsa da, müzakirələrin məntiqi nəticəsi kimi, Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində öz əksini tapdı.

Dilimizin inkişafına xüsusi diqqət yetirən Ulu öndər Heydər Əliyev 2001-ci il iyunun 18-də “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Fərman imzaladı. Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyasının yaradılmasını da nəzərdə tutan bu sənəd Azərbaycan dilinin inkişafı və tətbiqi sahəsinin genişlənməsinə böyük imkanlar açdı.

Dilimizin sadiq keşikçisi olan Ümummilli liderimiz 2001-ci il avqustun 9-da “**Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” yeni bir Fərman da imzaladı. Həmin Fərmanda deyilir: “Hər il avqust ayının 1-i Azərbaycan Respublikasında Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilsin**”.

Bu Fərman bütün sahələrdə Azərbaycan dilinin daha mükəmməl səviyyədə tətbiq olunması işini bir az sürətləndirdi, bundan sonra bütün yazılı sənədləşmələr latın qrafikalı Azərbaycan əlifbası ilə aparıldı.

Ulu öndərin xalqa xidmət edən qlobal siyasətini ləyaqətlə davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyev də dilimizin inkişafı istiqamətində bir sıra uğurlu addımlar atdı. “Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında” və “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 12 yanvar 2004-cü il tarixli sərəncamları bu baxımdan müstəsna əhəmiyyət kəsb edir. Möhtərəm Prezidentimizin milli-mənəvi dəyərlərimizə, elmin və mədəniyyətin inkişafına böyük diqqət yetirməsinin bariz göstəricisi olan bu sərəncamlara əsasən 2004-cü ildən Azərbaycan və dünya ədəbiyyatının inciləri latın qrafikası ilə nəşr olunaraq ölkənin bütün kitabxanalarına paylanılmağa başlanıldı.

Möhtərəm Prezidentimiz İlham Əliyevin bu gün yeritdiyi dil siyasəti Ulu öndərimizin vaxtilə söylədiyi bu dahiyanə fikirlərdən mənəvi qida alır: “Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi sox sevir və bu dildə danışmağımla fəxr edirəm”.

Cənab İlham Əliyev öz şəxsi nümunəsi ilə, dilimizdə ləyaqətli nitqləri ilə, hamımıza örnək və güvənc yeridir.

**“Yeni Azərbaycan”.-**2013.-9 aprel.-N 60.-S.4.

# HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT KURSU VƏ AŞPA

**Sahibə QAFAROVA,**
Milli Məclisin deputatı,
Bakı Slavyan Universitetinin prorektoru

**Məlum olduğu kimi, 1991-ci ildə Sovet İmperiyasının süqutundan sonra müstəqilliyini elan edən Azərbaycan daxildəki problemlərlə yanaşı, beynəlxalq güc mərkəzlərinin bölgədəki rəqabəti fonunda da çıxılmaz vəziyyətə düşmüşdü. Ölkəmizdə bütün istiqamətlərdə müşahidə olunan geriləmə, xaos və böhran xarici siyasətdə də özünü göstərirdi.**

Bir yanda Şərqə doğru genişlənməyə qərar verən ABŞ, bir yanda köhnə imtiyazlarını və ərazisini bərpa etmək üçün yollar axtaran Rusiya, digər yanda isə regiona başqa dövlətlərin daxil olmasını önləməyə çalışan İran kimi dövlətlər yeni yaranmış dövlətdə – Azərbaycanda da söz sahibi olmaq üçün əlindən gələni edirdi. Kənar müdaxilələr və Bakıdakı səriştəsiz hakimiyyətlərin isə buna qarşı adekvat addımlar atmaq iqtidarında olmaması ölkəni parçalanmaya doğru aparırdı. Yəqin ki, 1992-93-cü illərdə Azərbaycanın müxtəlif bölgələrində baş qaldırmış dövlət çevrilişi cəhdlərinin hardan qidalandığı çoxlarına bəllidir. Nəhəng güc mərkəzlərinin "yandırıcı nəfəsinin" istiliyini üzərində hiss edən hakimiyyət yetkililəri isə çarəni hərə bir "pay" verməkdə görür, daha böyük təhlükələrin ortaya çıxmasına zəmin hazırlayırdılar. Azərbaycan getdikcə borclanır, borclandıqca da süquta doğru irəliləyirdi. Lakin 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bütün istiqamətlərdə olduğu kimi xarici siyasətdə də böhran dayandı və Azərbaycan üçün sözün həqiqi mənasında yeni mərhələ başladı.

Ümummilli lider Heydər Əliyev əslində ölkənin çox güclü potensiala sahib olduğunu yaxşı bilirdi. Məhz bu potensialı yönləndirib dövlətin inkişaf istiqamətlərini müəyyənləşdirmək, onu tətbiq etmək lazım idi. Bunun üçün cəsarət, sonra isə siyasi bacarıq, diplomatik səriştə gərəkli idi ki, hər halda Heydər Əliyev kimi zəngin dövlətçilik təcrübəsinə və siyasi bacarığa sahib olan bir lider üçün bu heç də çətin olmadı. Heydər Əliyev Azərbaycana "poliqon" kimi baxanları yanıltdı. Ölkə daxilindəki vətəndaş müharibəsini dayandırdı, beynəlxalq güclərin təzyiqlərinin qarşısını aldı, heç kəsdən asılı olmayan sözün həqiqi mənasında müstəqil xarici siyasət kursunun əsasını qoydu.

Azərbaycanın xarici siyasətində güclü beynəlxalq təşkilatlarla yüksək səviyyəli əlaqələrin qurulması və bu münasibətlərdən dövlətimizin maraqlarına uyğun faydalanması mühüm istiqamətlərdən biridir. Belə təşkilatlardan biri də Avropa Şurasıdır. Bu təşkilat və onun strukturları ilə yüksək səviyyəli əlaqələrin qurulması əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş xarici siyasət kursunun mühüm istiqamətlərindən birini təşkil edir.

Azərbaycan parlamenti 24 yanvar 1992-ci ildə Avropa Şurasına "xüsusi dəvət edilmiş qonaq" statusu almaq üçün müraciət etsə də, 3 fevral 1995-ci ildə AŞPA Bürosu ölkəmizin "xüsusi dəvət edilmiş qonaq" statusu almaq barədə müraciətinin nəzərdən keçirilməsi təşəbbüsü ilə çıxış etmişdir. 28 iyun 1996-cı ildə isə Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Bürosu Azərbaycana "xüsusi dəvət edilmiş qonaq" statusunun verilməsi barədə qərar qəbul etmişdir. Bunun ardınca, 13 iyul 1996-cı ildə ümummilli lider Heydər Əliyev Avropa Şurası Baş katibinin adına məktub göndərərək Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunmaq və digər üzv dövlətlər kimi İnsan hüquqları və azadlıqları haqda Avropa Konvensiyasına qoşulmaq arzusunda olduğunu bildirmişdir. Azərbaycanla Avropa Şurası arasında əməkdaşlığın genişləndirilməsi yolunda praktiki olaraq ən mühüm addım Heydər Əliyevin 1998-ci il 20 yanvar tarixli "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında" Sərəncamı olmuşdur. Sərəncamda insan hüquqlarının qorunmasına dair bir sıra beynəlxalq sənədlər imzalamış, Azərbaycanın Avropa Şurasına qoşulmasına dair hazırlıq tədbirlərinin görülməsi öz əksini tapmışdı. Azərbaycanda ölüm hökmünün ləğv olunması, söz azadlığının təmini , bütün kütləvi informasiya vasitələrinə sərbəstlik verilməsi və senzuranın ləğv edilməsi, Konstitusiya Məhkəməsinin yaradılması demokratik cəmiyyət quruculuğunun başlıca atributlarını əks etdirməklə yanaşı, ölkəmizin Avropa Şurasının üzvlüyünə qəbulu yolunda mühüm addım kimi qiymətləndirilirdi.

Bundan əlavə, 21 oktyabr 1999-cu ildə ümummilli lider Heydər Əliyev "Avropa Şurasında Azərbaycan Respublikasının təmsilçiliyinin təşkilati təminatı haqqında" Sərəncam vermişdir.

Ulu öndər Heydər Əliyevin gərgin zəhməti sayəsində görülən işlər öz bəhrəsini verməyə başlamışdı. 15 may 2000-ci ildə Avropa Şurası Siyasi Komitəsinin Dublində keçirilmiş iclasında Azərbaycan üzrə məruzəçi J.Bomelin hesabatı dinlənilmiş və ölkəmizin Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi ilə bağlı müsbət rəy verilmişdir. Həmin il mayın 22-də isə Avropa Şurası Hüquq Məsələləri və İnsan Hüquqları Komitəsinin

Limasolda (Kipr) keçirilmiş iclasında Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzv qəbul edilməsi üçün müəyyən şərtlər irəli sürülmüşdür. Bunun ardınca isə 12 – 13 iyun 2000-ci ildə AŞ Siyasi Komitəsinin Romada növbəti iclası keçirilmiş və Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi ilə bağlı növbəti dəfə müsbət rəy verilmişdir. Avropa Şurası Parlament Assambleyasının həmin ilin 26 – 28 iyununda keçirilmiş yay sessiyasında da Azərbaycanın bu quruma üzvlüyünə dair münasibət bildirilmiş, 126 nəfər deputatın iştirak etdiyi səsvermədə 120 nəfər lehinə, 1 nəfər əleyhinə, 5 nəfər isə bitərəf qalmaqla Azərbaycan Respublikasının Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul edilməsinə dair müsbət rəy verilmişdir.

Daha sonra isə bu məsələnin AŞ-ın üst qurumunun müzakirəsinə çıxarılması ilə bağlı ardıcıl tədbirlər görülmüş və 7-9 noyabr 2000-ci ildə Avropa Şurası Nazirlər Komitəsinin 107-ci sessiyasında Azərbaycanın Avropa Şurasına üzv olmağa dəvət edilməsi adlı 14 saylı Qətnamə qəbul edilmişdir. Bu sənəddə Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndələrinin sayının 6 nəfər həddində müəyyənləşdirilməsi, eləcə də ölkədə demokratiyanın inkişafı, qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması və s. məsələlər əksini tapmışdı.

Nəhayət, 2001-ci il yanvarın 17-də Avropa Şurası Nazirlər Komitəsinin nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edilmişdir. Bu, müstəqil Azərbaycan dövlətinin xarici siyasət sahəsində əldə etdiyi ən böyük nailiyyətlərdən biri olmaqla bərabər, ölkəmizin gələcək inkişaf meyilləri və Avropaya inteqrasiya siyasətinin mühüm ştrixlərini özündə əks etdirən çox vacib bir hadisə idi. Artıq Azərbaycan rəsmən Avropa ailəsinin üzvü kimi özünü tanıtmağa başladı. Həmin il yanvarın 25-də Strasburqda Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə həsr olunmuş rəsmi mərasim keçirilmişdir. Mərasimdə ümummilli liderimiz Heydər Əliyevin rəhbərlik etdiyi geniş nümayəndə heyəti iştirak etmişdir.

Həmin mərasimdə geniş nitq söyləyən ulu öndər Heydər Əliyev bu tarixi hadisəni belə şərh etmişdir: "Tarixi yolların qovuşuğunda yerləşən ölkəmizin Avropa Şurasına qəbul olunması həm Azərbaycan üçün, həm də bu təşkilat üçün çox mühüm hadisədir. Biz ümumavropa dəyərləri xəzinəsinə öz töhfələrimizi gətirməyə hazırıq. Bu töhfələr həm Avropada demokratik sabitliyin möhkəmlənməsinə, həm də avropalıların şərq xalqlarının tarixi taleyini daha yaxşı və dərindən dərk etməsinə kömək edəcəkdir.

Bu, bir tərəfdən qabaqcıl demokratik ideyaların, hüquqi baxışların yayılması, digər tərəfdən isə bütün xalqların milli mənəvi xüsusiyyətlərinə hörmət bəslənilməsi üçün yaxşı zəmin olacaqdır. Mən bu mötəbər təşkilatın gələcək inkişafı və möhkəmlənməsində öz ölkəmin xüsusi rolunu və məsuliyyətini bunda görürəm".

Azərbaycanın Avropa Şurasına üzvlüyü rəsmən təsdiqləndikdən sonra tərəflər arasında əlaqələr çox fəal fazaya daxil olmuşdur. Tərəflər arasında əlaqələrin genişləndirmək məqsədilə keçirilən tədbirlər həm Azərbaycanın əməkdaşlıqda ortaya qoyduğu ciddi iradəni, həm də ölkəmizin beynəlxalq nüfuzda artan nüfuzunun nümayişi kimi də qiymətləndirilə bilər.

Avropa Şurasına "xüsusi dəvət olunmuş" statusu əldə etdiyi vaxtdan bu mötəbər təşkilata tamhüquqlu üzv olduğu dövrə qədər olan müddətdə, yəni 5 ildə Azərbaycanın xarici siyasət konsepsiyası bir neçə prinsipial məqamı ilə diqqəti cəlb edir. Öncə bu siyasət Azərbaycanın dünyanın nəbzi vurduğu geosiyasi məkana doğru hərəkətini təmin edən siyasət olmuşdur. Bunu təkcə Qərbə doğru siyasət adlandırmaq, yəqin ki, düz olmazdı. Bu, Azərbaycanın xarici siyasətinin aparıcı – siyasi və iqtisadi cəhətləri özündə birləşdirən istiqamətlərdən biridir.

Siyasi tərəfi ondan ibarətdir ki, Azərbaycanın elan etdiyi prinsiplər dünyəvi, demokratik, açıq və dünyada baş verməkdə olan mütərəqqi inkişaf prosesləri üçün qapılarını açan, o proseslərə cəlb olunmaq istəyən bir dövlətdir. Müxtəlif mövqelərdən müstəqilliyimizə xələl gətirmək istəyən qüvvələrə qarşı Azərbaycan dünyanın güc mərkəzlərinə, o cümlədən Avropaya açıq siyasətlə inteqrasiyaya gedir və bu bizim müstəqilliyimizə bir təminatdır.

Sirr deyil ki, Azərbaycan çox maraqlı və əhəmiyyətli geosiyasi məkanda yerləşir, ölkənin kifayət qədər mənbələri, neft və qaz ehtiyatları var. Hesab edirik ki, xarici iqtisadi əlaqələr Azərbaycanın indiki vəziyyətində onun dünya iqtisadi inteqrasiyası, öz müstəqilliyinə təminat almaq mənasında Azərbaycan üçün çox uğurlu bir vasitədir. Burada qeyd etdiyimiz istiqamətin siyasi və iqtisadi hissəsi bir-biri ilə tamamilə uyğunlaşır.

Bütövlükdə xarici siyasət strategiyasının düzgün müəyyənləşdirilməsi nəticəsində Azərbaycanın Avropa Şurasına üzv qəbulu ümummilli maraqlarımıza cavab verən böyük siyasi hadisə kimi cəmiyyətdaxili siyasi çəkişmələrdən, siyasi əqidə mənsubiyyətindən irəli gələn subyektiv mülahizələrdən qat-qat yuxarıda durduğundan layiqincə qiymətləndirilməlidir.

Qeyd etdiyimiz kimi, 2001-ci il yanvarın 25-dəki tarixi çıxışında Azərbaycanın Ulu öndəri Heydər Əliyev bu qurumla ölkəmiz arasındakı qarşılıqlı münasibətlərin əsas istiqamətlərini müəyyənləşdirdi. Təbii ki, bu çıxışda qeyd edilən məsələlər AŞ PA-da fəaliyyət göstərəcək Azərbaycanın nümayəndə heyəti üçün bir

fəaliyyət proqramı idi. AŞ PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri olmuş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın Avropa Şurasına üzv olmasının tarixi əhəmiyyətindən danışarkən deyirdi: "Bu, ölkəmiz üçün böyük nailiyyətdir. Təkcə ona görə yox ki, biz orada öz sözümüzü deyək, halbuki bu da çox vacibdir. Azərbaycan üçün belə bir tribuna, belə bir kürsü lazım idi ki, biz orada sübutlarla, dəlillərlə erməni işğalçılarını ifşa edə bilək. Avropa Şurası bu məqsəd üçün çox münasib bir yerdir".

Azərbaycanın bu quruma üzv olmasının digər önəmli məqamına toxunan Azərbaycan Respublikasının Prezidenti qeyd edirdi: "Avropa Şurasına üzv olmaq bizə ona görə lazım idi ki, Azərbaycanda gedən proseslər dünya standartlarına daha çox yaxınlaşsın. Biz bunun şahidi olduq. Azərbaycan Avropa Şurasına qəbul olunanda üzərinə müəyyən öhdəliklər götürdü və o öhdəlikləri indi yerinə yetirir. Bu öhdəliklər bizə imkan verəcək ki, daha azad, demokratik cəmiyyətdə yaşayaq."

Azərbaycan Avropa Şurasındakı fəaliyyətinin əsas vəzifələrini müəyyənləşdirərkən ilk növbədə ölkə həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaqla Ermənistanın işğalçı siyasətini ifşa etmək, azərbaycanlılara qarşı ermənilərin həyata keçirdiyi terror və soyqırımı, torpaqlarımızın 20 faizinin işğal edildiyi faktını tanıtdırmağı qarşısına məqsəd qoymuş, respublikamızda demokratik, hüquqi dövlət quruculuğu işini davam etdirmək, müstəqilliyi möhkəmləndirmək məqsədilə Avropa dəyərlərini mənimsəyərək bu birliyə inteqrasiya etmək istiqamətində fəaliyyətini genişləndirməyə xüsusi önəm vermişdir. Əsas vəzifələrdən biri də ölkəmizdə demokratik və hüquqi dövlət quruculuğu işində islahatları davam etdirmək üçün Avropa Şurasının Azərbaycan qarşısında qoyduğu konkret öhdəliklərin yerinə yetirilməsi və vətəndaş cəmiyyətinin inkişafının təmin edilməsi idi. Və nümayəndə heyətimizin gərgin əməyi sayəsində qısa müddət ərzində Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyəti tərəfindən onlarla sənəd hazırlanmış və onlar şuranın rəsmi sənədləri kimi yayılmışdı. Təsəvvür etsək ki, bu qurumda 47 ölkənin parlamentlərinin deputatları fəaliyyət göstərir və qəbul edilmiş sənədlər həm onlara paylanır, həm də həmin ölkələrin parlamentlərinə göndərilir, onda qarşıya qoyulmuş birinci vəzifə ilə bağlı görülmüş işlərin miqyası haqqında konkret fikir formalaşa bilər.

2002-ci ilin sentyabrında Strasburqda AŞ PA-da Azərbaycanın nümayəndə heyətinin rəhbəri olarkən cənab İlham Əliyev Azərbaycan Televiziyasına verdiyi müsahibədə bildirirdi: "Mən deyə bilərəm ki, Avropa Şurası deputatlarının indiyə qədər bu məsələ ilə bağlı o qədər böyük məlumatları yox idi. Çünki bu, bir tərəfdən erməni təbliğatı, erməni lobbisinin fəaliyyəti, digər tərəfdən isə Azərbaycanın bu qədər böyük tribunasının olmaması ilə bağlı idi. Amma biz Avropa Şurasına daxil olandan sonra bu tribunadan, bu kürsüdən çox səmərəli istifadə etdik".

Məlum olduğu kimi, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi Azərbaycanın xarici siyasətində əsas yer tutur. Bu istiqamətdə ölkəmiz bir çox dövlətlərlə yanaşı beynəlxalq təşkilatlarla da fəal əməkdaşlıq edir. Uğurlu diplomatiya nəticəsində bir sıra beynəlxalq təşkilatlar Ermənistanın işğalçılıq siyasətini pisləyən, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qətnamələr qəbul edib. Bunlardan biri də Avropa Şurası Parlament Assambleyası tərəfindən 2005-ci ildə qəbul olunmuş 1416 saylı Qətnamədir.

Ümumiyyətlə, Azərbaycan bu nüfuzlu təşkilatın imkanlarından istifadə edərək Ermənistanın işğalçılıq siyasətinin ifşa edilməsi istiqamətində ciddi səylər göstərmişdir. Görülən işlərin nəticəsində bu təşkilat Ermənistanın təcavüzünü pisləyən sənəd qəbul edib. 25 yanvar 2005-ci ildə Avropa Şurası Parlament Assambleyasının yanvar sessiyasında "ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə" adlı 1416(2005) saylı qətnamə və 1690(2005) saylı tövsiyə qəbul olunmuşdur. Həmçinin nümayəndə heyətimizin üzvləri ardıcıl olaraq bu yöndə sənədlər hazırlayaraq Avropa parlamentariləri arasında yaymışdırlar. Qeyd etdiyimiz kimi, 1416 saylı qətnamə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycana diplomatik üstünlük verən vacib beynəlxalq sənəddir. Azərbaycan Prezidenti İlham Əliyev də çıxışlarında dəfələrlə bu sənədin əhəmiyyətini vurğulamışdır.

Qətnamədə bildirilir ki, Avropa Şurası Parlament Assambleyası silahlı əməliyyatların başlamasından illərlə vaxt keçməsinə baxmayaraq, Dağlıq Qarabağ bölgəsi üzərində münaqişənin həll olunmamış qalmasından təəssüflənir. "Yüz minlərlə insan hələ də köçkündür və acınacaqlı şəraitdə yaşayır. Azərbaycan ərazisinin əhəmiyyətli hissələri hələ də erməni qüvvələri tərəfindən işğal altındadır və separatist qüvvələr hələ də Dağlıq Qarabağ bölgəsinə nəzarət edirlər."

Assambleya hərbi əməliyyatların və bundan əvvəl başlamış kütləvi etnik düşmənçiliyin qorxunc etnik təmizləmə anlayışını xatırladan genişmiqyaslı etnik qovulmaya və monoetnik ərazilərin yaranmasına gətirib çıxarması ilə bağlı öz narahatlığını ifadə edir. Assambleya bir daha təsdiq edir ki, bir dövlətin ərazisindən regional ərazinin ayrılması və müstəqilliyi etnik qovulmaya və bu cür ərazinin digər dövlətə de-fakto birləşdirilməsinə gətirib çıxaran silahlı münaqişə yolu ilə deyil, yalnız bu ərazinin əhalisinin demokratik dəstəyinə əsaslanan qanuni və dinc proses vasitəsilə əldə oluna bilər. Assambleya üzv dövlət tərəfindən xarici ərazinin işğalının həmin dövlətin Avropa Şurasının üzvü kimi öz üzərinə götürdüyü öhdəliklərin ciddi şəkildə

pozulması demək olduğunu xatırladır və münaqişə ərazisindən köçkün düşmüş şəxslərin öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtması hüququnu bir daha təsdiq edir.

Assambleya Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı Qətnamələrini xatırladır və əlaqədar tərəflərin, xüsusilə silahlı əməliyyatlardan çəkinməklə və istənilən işğal olunmuş ərazilərdən silahlı qüvvələri çıxarmaqla, onlara riayət etməsini təkid edir. Assambleya Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 853 (1993) saylı qətnaməsində ifadə olunmuş tələbə tərəfdar çıxır və beləliklə, bütün üzv dövlətlərin münaqişənin intensivləşdirilməsinə və ya ərazinin işğalının davam etməsinə gətirib çıxara bilən silah və sursat təchizatından çəkinməsini təkid edir".

Sənəddə xatırlanır ki, həm Ermənistan, həm də Azərbaycan 2001-ci ilin yanvarında Avropa Şurasına daxil olarkən öz qonşularına qarşı zor tətbiq etmək hədəsindən çəkinməklə münaqişəni yalnız dinc vasitələrlə həll etmək öhdəliyini götürmüşlər. Eyni zamanda, Ermənistan münaqişənin həllini təşviq etmək üçün Dağlıq Qarabağ üzərində əhəmiyyətli təsirindən istifadə etməyi öz üzərinə götürüb. "Assambleya Azərbaycan və Ermənistanın Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsini imzalamalarını və Nizamnamənin 93-cü Maddəsinin 1-ci bəndinə uyğun olaraq, Beynəlxalq Ədalət Məhkəməsinin Statutuna tərəfdar çıxmalarını xatırladır. Bununla əlaqədar olaraq, Assambleya Minsk qrupunun həmsədrlərinin himayəsi altında keçirilən danışıqların uğursuzluqla nəticələnəcəyi təqdirdə, Azərbaycan və Ermənistanı Məhkəmənin Statutunun 36-cı Maddəsinin 1-ci bəndinə uyğun olaraq, Beynəlxalq Ədalət Məhkəməsindən faydalanmağı nəzərdən keçirmələrini təklif edir. Assambleya Azərbaycan və Ermənistanı Assambleya daxilində, eləcə də Qafqaz Dördlüyünün Parlament spikerlərinin görüşləri kimi digər forumlarda ikitərəfli parlamentlərarası əməkdaşlığı gücləndirməklə özləri arasında siyasi barışığı təşviq etməyə çağırır. O, hər iki nümayəndə heyətinin bu cür barışıq istiqamətində tərəqqini nəzərdən keçirmək üçün Assambleyanın hər hissəvi-sessiyasında görüşməsini tövsiyə edir" – deyə, qətnamədə vurğulanır.

Təşkilatın bu məsələ ilə bağlı atdığı addımlar yalnız həmin qətnamə ilə bitmir. AŞ PA-nın sülh prosesini irəli aparmaq üçün Dağlıq Qarabağ üzrə Alt Komitənin yaradılmasına qərar verməsi də önəmli faktorlardan biridir. Müəyyən fasilədən sonra Alt Komitənin fəaliyyətinin bərpa olunması Avropa Şurasının münaqişənin həlli üçün göstərdiyi səylərin davamlı olmasından xəbər verir.

Avropa Şurası ilə Azərbaycan arasında möhkəm dayaqlar üzərində qurulmuş və qarşılıqlı maraqlara söykənən münasibətlər bu gün də inkişaf etməkdədir. Avropa Şurası ilə əməkdaşlıq ölkəmizdə demokratik islahatların daha da dərinləşməsi, demokratik təsisatların inkişaf etdirilməsi, Avropa dəyərlərinin möhkəmlənməsi, insan hüquqlarının daha effektiv şəkildə qorunması prosesinə yardım edib. Azərbaycan Respublikası bu gün Avropa Şurası ilə ən müxtəlif sahələrdə qarşılıqlı-faydalı münasibətlər quraraq səmərəli əməkdaşlıq həyata keçirir. Avropa Şurası Azərbaycanın demokratik yolla inkişafını, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən demokratik islahatları yüksək qiymətləndirir, əlaqələrin bundan sonra da inkişafında maraqlıdır. Təşkilata üzv dövlətlərlə əlaqələrin genişləndirilməsi ölkələrimizin bir-birinə daha da yaxınlaşmasına və qarşıya çıxa biləcək problemlərin aradan qaldırılmasına əlverişli zəmin yaradır. Avropa Şurası Azərbaycanın problemlərinin həllinə həssas yanaşır, ölkəmizin əsas problemi olan Dağlıq Qarabağ münaqişəsini mütəmadi olaraq gündəmdə saxlayır. Azərbaycan bu quruma üzv olan digər ölkələrlə də əməkdaşlığın daha geniş spektrlərini əhatə etməsi, genişlənməsi üçün əməli addımlar atır. Eyni zamanda, Azərbaycan da öz tarixi, mədəni dəyərləri ilə, Avropa ailəsinin zənginləşməsinə öz töhfəsini verməkdədir. Təbii ki, bir sıra hallarda bu təşkilatın Azərbaycanda baş verən hadisələrə münasibətində müəyyən qeyri-obyektiv nüanslar müşahidə olunur və bunlar daha çox müəyyən şəxslərin qərəzliliyindən meydana gəlir. Müstəqil xarici siyasət həyata keçirən Azərbaycan dövlətinin rəhbərliyi bununla bağlı etirazlarını dilə gətirirlər və müvafiq qurumlara çatdırırlar. Təbiidir ki, biz bu halların təkrarlanmasını və qurumla ölkəmizin əməkdaşlığına kölgə salacaq hansısa neqativ olaylar baş verməsini istəməzdik. Lakin bununla belə, hər hansı bir neqativ cəhd olarsa buna qarşı önləyici tədbirlər zamanında reallaşdırılır və sonuncu sessiyada (2013 ilin qış sessiysı, Yanvar) bir daha təsdiq olundu ki, Azərbaycanın Avropa Şurasında çox möhkəm və hadisələrin axarını dəyişdirəcək nüfuzu vardır. Azərbaycana qarşı aparılan istənilən kampaniya isə iflasa məhkumdur.

**"İki sahil".**-2013.-10 aprel.-N 61.-S.11.

# AZƏRBAYCANÇILIQ İDEALININ RƏMZİ

**İsa HƏBİBBƏYLİ,**
Milli Məclisin deputatı,
Naxçıvan Dövlət Universitetinin rektoru

Görkəmli dövlət xadimi, Ulu öndər Heydər Əliyev Azərbaycan tarixində ilk dəfə olaraq ölkəmizdə azərbaycançılıq ideyasını dövlətin siyasi ideologiyası səviyyəsinə qaldırmışdır. Azərbaycan və azərbaycançılıq anlayışları qədim tarixə malik olsalar da, uzun əsrlər boyu yalnız coğrafi yer adı kimi işlədilmiş, son yüzillikdə həm də milli ideya olaraq formalaşmışdır. Azərbaycançılığın dövlət siyasətində milli ideologiyaya çevrilməsi Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı böyük tarixi xidmətlərindən biridir.

Məlum olduğu kimi, ölkə olaraq qədim tarixə malik olan Azərbaycanda milli məfkurə XIX əsrdən etibarən yaranmağa başlamışdır. Həmin epoxada azərbaycançılığın məfkurəyə çevrilməsi cəmiyyətin inkişafının yeni tarixi mərhələyə qədəm qoymasından və milli-mənəvi özünüdərk proseslərinin formalaşmasının sürətlənməsindən doğan bir göstərici idi. Azərbaycançılıq ideyasının yaranmasında xalqın özünün milli varlığını və ölkəsinin coğrafi ərazisini müəyyən etməsi zərurəti mühüm rol oynamışdır. Bu proses aşağıdakı bir neçə mərhələ üzrə formalaşıb inkişaf etmişdir: Dövrü mətbuatda azərbaycançılıq ideyasının meydana çıxması; ədəbiyyatda azərbaycançı düşüncənin inkişaf etdirilib dərinləşdirilməsi; böyük siyasətdə azərbaycançılığın milli dövlətin ideologiyası səviyyəsinə çatdırılması.

Milli ziyalılığın görkəmli nümayəndəsi Məhəmmədağa Şaxtaxtlının 1891-ci ildə Bakıda "Kaspi" qəzetində çıxan "Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı" adlı məqaləsində ölkəmizin adının Azərbaycan, dilimizin "Azərbaycan dili", millətimizin azərbaycanlı adlandırılması haqqındakı mülahizələri azərbaycançılıq haqqında ilk sistemli mülahizələr kimi əhəmiyyətlidir. Eyni ildə "Kəşkül" qəzetində "Azərbaycanlı" imzası ilə çıxmış "Əvam gəzmək yuxu yatmaqmı – dedin" məqaləsində də tatar, yaxud müsəlman anlayışları əvəzinə "Azərbaycan milləti" ifadəsinin işlədilməsi zərurətinin diqqət mərkəzinə çəkilməsi ilə azərbaycançılıq ideyası bir qədər də genişləndirilmişdir.

XX əsrin əvvəllərində, 1917-ci ildə böyük demokrat ədib Cəlil Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalında çap etdirdiyi "Azərbaycan" məqaləsində isə konkret olaraq "Haradır Azərbaycan", "dilimin adı nədir" suallarına cavab verilmişdir. Cəlil Məmmədquluzadə "Anamın kitabı" dramında ədəbiyyatda ilk dəfə olaraq milli birlik ideyasını da meydana qoymuşdur. Lakin həmin tarixi mərhələdə ölkəmizdə qəzet və ya kitab oxuyan əhalinin çox az olduğunu nəzərə alsaq, bu ideyanın hələlik informasiya şəklində müəyyən qrup ziyalılar arasında yayıldığı qənaətinə gəlmiş ola bilərik. Keçmiş sovet hakimiyyəti illərində isə ədəbiyyatda Azərbaycan əsasən tərənnüm olunmuş, milli ideya kimi yaşadılsa da, bolşevik rejiminin təsiri ilə bu ideyanın azərbaycançılıq səviyyəsinə çatdırılmasına imkan verilməmişdir. Bütün bunlara görə ölkəmizdə azərbaycançılığın mətbuatdan və ədəbiyyatdan ictimai-siyasi müstəviyə çıxarılması kimi çətin və şərəfli vəzifənin həlli görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlı olan tarixi xidmətdir. Məhz Heydər Əliyev yaşadığı dövrün siyasi quruluşunun sərt qadağalarına baxmayaraq, Azərbaycan anlayışına geniş müstəvidə baxışlar sistemini formalaşdırmışdır. Ulu öndər Heydər Əliyevin simasında tariximizdə ilk dəfə olaraq Azərbaycan məsələsinə dövlət səviyyəsində kompleks şəkildə yanaşılmış, problemə ardıcıl münasibət bəslənilmiş və konkret nəticələr əldə olunmuşdur. Azərbaycançılığın dövlət ideologiyası səviyyəsində formalaşdırılması və təsdiq edilməsi, qəbul olunması Heydər Əliyevin müstəqil dövlətçilik uğrunda mübarizəsinin əsas ana xətlərindən birini təşkil edir. Görkəmli dövlət xadimi Heydər Əliyev azərbaycançılıq siyasətini özünün çoxcəhətli fəaliyyətinin bütün mərhələlərində əsas kimi götürmüş, bu ideologiyanın xalqın milli şüurunda və dövlətçilik təfəkküründə inkişaf etdirilib möhkəmləndirilməsi işini həyatının mənasına, siyasətinin əsas hərəkətverici qüvvəsinə çevirmişdir. Məhz Heydər Əliyevin çoxcəhətli və ardıcıl siyasəti nəticəsində azərbaycançılıq ictimai-ədəbi mühitdə milli hərəkat, siyasi müstəvidə isə dövlət ideologiyası mahiyyəti qazanmışdır.

Qeyd etdiyimiz kimi, Heydər Əliyev çoxillik siyasi fəaliyyətinin bütün dövrlərində azərbaycançılıq məsələsini ən ali məqsəd hesab etmişdir. Tarixin verdiyi şansların yaratdığı imkanların hamısında bu böyük dövlət xadimi özünü Azərbaycana həsr etmiş, Azərbaycan idealı uğrunda daim dönmədən mübarizə aparmışdır. Hələ Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinə başçılıq etdiyi illərdən və sovet hakimiyyəti zamanı ölkəmizə rəhbərliyinin birinci dövründə böyük gələcək ümidi ilə milli dövlətçilik naminə həyata keçirdiyi genişmiqyaslı siyasi-ideoloji, iqtisadi-mədəni, ədəbi-tarixi tədbirlər sonrakı mərhələdə qazanılmış dövlət müstəqilliyinin möhkəm təməlini, etibarlı bünövrəsini təşkil etmişdir. Məlum olduğu kimi, Səfəvilər hakimiyyəti illərində azərbaycançılıq amili dövlət siyasətinin bütün istiqamətlərini deyil, müəyyən sahələrini

əhatə edə bilmişdi. Azərbaycan xanlıqları dövründə də ölkə parçalandığı üçün vahid milli siyasətin həyata keçirilməsi mümkün olmamışdı. Rusiyanın Azərbaycanı işğalından sonra ölkədə ümumi maarifçilik sahəsində müəyyən irəliləyişlər olsa da, siyasi proseslərdə azərbaycançılıq pərdə arxasına keçirilmiş, milli faktorların imperiya maraqlarının içərisində əridilməsi siyasəti ön plana çəkilmişdir. Analoji siyasət Sovetlər İttifaqı tərəfindən də eyni dərəcədə, hətta bir qədər də şiddətlə gündəmdə saxlanılmışdı. Azərbaycan Demokratik Cümhuriyyətinin isə ömrü qısa olduğu üçün həmin mürəkkəb tarixi mərhələdə azərbaycançılıq istiqamətində qaldırılan təşəbbüslər yarımçıq qalmışdır. Bütün bunlara əsasən qətiyyətlə demək olar ki, Azərbaycanın çoxəsrlik tarixində Heydər Əliyev qədər uzun müddət və ardıcıl şəkildə azərbaycançılıq siyasəti ilə məşğul olan ikinci bir dövlət xadimi olmamışdır. Azərbaycan SSR-in Dövlət Təhlükəsizlik Komitəsinin rəhbərliyindəki fəaliyyətini də nəzərə alsaq, Heydər Əliyev qırx ildən artıq böyük bir dövrdə azərbaycançılıq ideyası ilə dövlət işi səviyyəsində məşğul olmuşdur. Sovetlər İttifaqının rəhbərliyi ilə anlaşıqlı münasibətlər qurmağı bacarmış Heydər Əliyevin Azərbaycanı geridə qalmış aqrar respublikadan hərtərəfli inkişaf etmiş bir ölkəyə çevirməsi mühüm tarixi hadisədir. Eyni zamanda, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə, konkret olaraq 1978-ci ildə Azərbaycan dilinin ölkəmizin konstitusiyasına dövlət dili kimi daxil etdirməyə nail olması da misilsiz tarixi hadisələrdən biridir. Nəzərə almaq lazımdır ki, həmin dövrdə nəinki Orta Asiya respublikalarında, heç Siyasi Büroda böyük təmsilçiləri olan Ukraynada da xalqın dili dövlət dili səviyyəsinə çatdırıla bilməmişdi. Buna görə də, Sovetlər İttifaqında vahid beynəlmiləlçilik prinsiplərinin həyata keçirildiyi bir zamanda Azərbaycan dilinin rəsmi olaraq dövlət dili kimi qəbul olunması çoxəsrlik dövlətçilik tariximizin nadir hadisəsidir. Azərbaycan dilinin sovet hakimiyyəti dövründə dövlət dili statusu qazanması Azərbaycan Respublikasının gələcək müstəqilliyinin mühüm təminatlarından biri idi. Bu hadisə Heydər Əliyevin dövlət xadimi olaraq azərbaycançılıq idealının parlaq təzahürü və böyük qələbəsi idi. Bu yolla Heydər Əliyev keçmiş sovet rejimi dövründə bütün çətinliklərə baxmayaraq ölkəmizdə milli istiqlal düşüncəsinin əsaslarını formalaşdırmaq kimi məsuliyyətli və şərəfli bir vəzifəni böyük bacarıqla həyata keçirmişdir. Bundan başqa, Sovetlər ölkəsi ilə münasibətləri tərs gələn milli istiqlalçıların-Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Bünyadovun, Xalq yazıçısı Mirzə İbrahimovun, böyük vətəndaş alim Abbas Zamanovun, Xalq şairləri Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın və başqalarının böyük dayağı ölkə rəhbəri Heydər Əliyev olmuşdu. İndi Azərbaycan Respublikasının keçən əsrin 70-80-ci illərində baş verən əsas siyasi-iqtisadi, elmi-mədəni hadisələri yenidən təhlil edilərkən görünən və görünməyən bütün proseslərin alt qatında, fəlsəfəsində, mahiyyətində millilik amilinin, müstəqillik düşüncəsinin, milli dövlətçilik təfəkkürünün varlığını, mövcudluğunu çox aydınlıqla görmək olar. Lakin ən böyük dahilik çətin ideoloji məhdudiyyətlər mühitində həmin prosesləri yaşayıb-hazırlayıb həyata keçirərkən böyük gələcəyi görmək istedadına malik olmaqdan ibarət idi. Ulu öndər Heydər Əliyev dövlətçilikdə qeyri-adi müdriklik və uzaqgörənlik istedadına malik olan qüdrətli liderdir. Bu böyük dövlət xadiminin müdriklik və uzaqgörənliyinin hərəkətverici qüvvəsi Vətənə, xalqa, doğma torpağa sonsuz inam və məhəbbətdən və sınaqlardan çıxmış böyük siyasi təcrübədən yoğrulmuşdur. Heydər Əliyev keçdiyi çətin və şərəfli yolla Sovetlər İttifaqında beynəlmiləlçi ideologiyanın sərt dövlətçilik prinsipi kimi qəbul edildiyi dövrlərdə vətənpərvər dövlət xadimi olub, Kremlin zirvəsinə qədər yüksəlməyin mümkünlüyünü isbat etmişdir. Bütün bunlara görə Heydər Əliyev üçün uzaqgörən bir dövlət xadimi olaraq çökmüş sovet ideologiyasından yeni müstəqil dövlətçilik siyasətinə keçmək heç bir çətinlik yarada bilməmişdir. Keçmiş sovet dövlətinin mərkəzdəki və respublikalardakı rəhbərlərinin bir çoxlarının adları dağılmış imperiya ilə birlikdə arxivə getdiyi halda, Heydər Əliyevin portretləri milli azadlıq hərəkatının bayraqları ilə birlikdə meydanlarda yüksəklərə qaldırılırdı. Deməli, Azərbaycanda xalq hərəkatı, milli azadlıq mübarizəsi böyük dövlət xadimi Heydər Əliyevin ideallarından keçib gəlmişdi. Bu mənada Sovetlər İttifaqı dağıldıqdan sonra müstəqillik qazanmış gənc respublikaların demək olar ki, mütləq əksəriyyətinin rəhbərlərindən fərqli olaraq Heydər Əliyev xüsusi bir "keçid dövrü" yaşamamışdır. Əksinə, Azərbaycan üçün Heydər Əliyev epoxasının birinci mərhələsi sovet sosialist sistemindən müstəqil dövlətçilik erasına keçid dövrü xarakteri daşımışdır. Milli ideologiyanın formalaşdırılması baxımından digər keçmiş sovet respublikalarının müstəqilliyin ilk illərində üzləşdikləri çətinlikləri Azərbaycan xalqı müstəqilliyə qədər yaşamışdı. Ona görə də, müstəqillik dövrünün başlanğıcının Heydər Əliyevsiz keçən ilk illərinin yaratdığı mürəkkəbliyə və törətdiyi böyük çətinliklərə baxmayaraq, xalqın tələbi ilə yenidən rəhbərliyə qayıtmış Heydər Əliyevin qüdrətinin işığında Azərbaycanda keçid prosesləri sürətlə getmiş, zaman etibarilə qısa bir müddətdən sonra ölkəmizdə müstəqil dövlət quruculuğu öz təbii, qanunauyğun məcrasına salınmışdır. Məhz buna görədir ki, Azərbaycan müstəqillik qazanmış keçmiş sovet respublikaları ilə müqayisədə milli ideologiya baxımından bir mərhələ qabaqdadır.

Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanın müstəqillik dövrünün də vəzifələrini dönmədən, qətiyyətlə həyata keçirmişdir. Cəmiyyət həyatında bütün sahələr üzrə dövlət idarəçiliyinin islahatlarını apararaq yenidən qurmaq işinin baş memarı Heydər Əliyev oldu. Məktəb islahatları da, torpaq islahatları da, cəmiyyəti

yeniləşdirməyin, möhkəmləndirməyin təməl prinsipləri də Heydər Əliyev tərəfindən qətiyyətlə həyata keçirilmişdir. Heydər Əliyev keçmiş sovet hakimiyyəti ilə yeni müstəqil dövlətçilik anlayışı arasında elə bir möhkəm sədd yaratdı ki, daha heç kimsədə bir daha geriyə qayıtmağa cürət və cəsarət qalmadı. Uzaqdan-yaxından Azərbaycanı parçalamaq niyyətində olanlar da Heydər Əliyevə dərindən inam bəsləyən və Onun ətrafında sıx birləşən xalqın bütövlüyünün qarşısında geri çəkilməyə məcbur oldular. Çox mürəkkəb ictimai-siyasi şəraitdə çevriliş cəhdləri, separatçılıq meyilləri ilə çıxış edən hərbi müxalifətlə demokratik müxalifəti bir-birindən ayıraraq özgə dəyirmanların daşını fırlatmağa can atanların arxlarını kəsməklə Heydər Əliyev müstəqil hüquqi dövlətin çarxının dünyəvi prinsiplər əsasında ahəngdar işləməsini təmin etməyi bacarmışdır. Görkəmli dövlət xadiminin Naxçıvan Muxtar Respublikasındakı fəaliyyəti dövrü Azərbaycanda müstəqil dövlət quruculuğunun laboratoriyası funksiyasını daşımışdır. Bu məsuliyyətli və şərəfli illər Azərbaycan dövlətçiliyinin çətin və zəruri sınaq mərhələsi idi. Ali Məclisin Sədri kimi Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında qəbul etdiyi tarixi qərarlar o zamankı Azərbaycan rəhbərliyi üçün "yolverilməz hallar" səviyyəsində anlaşılsa da, xalqımız tərəfindən ölkənin gələcəyinə, müstəqilliyin yaşadılacağına böyük ümid kimi qəbul edilmişdi. Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin rəhbərliyinə vətənpərvər Azərbaycan xalqının arzularının və ümidlərinin dalğasında gəlmişdi.

Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar Azərbaycanı rəsmi və ya qeyri-rəsmi olaraq tanımamışdan çox qabaq Heydər Əliyevi tanıdıqları üçün qısa müddətdə ölkəni də tanımalı oldular və Azərbaycan dünya birliyində öz yerini tuta bildi. Bu mənada möhtəşəm Heydər Əliyev abidəsinin Naxçıvan-pyedestalı, Bakı-böyük baş meydanı, bütövlükdə Azərbaycan isə Onun əzəmətli heykəlidir. Heydər Əliyev ölkəmizin bütün hüdudlarını əhatə edən Azərbaycan xəritəsidir. Azərbaycanı tapmaq üçün Heydər Əliyevi tanımaq yetərli idi. Azərbaycançılıq ideologiyası Azərbaycan tarixinə Heydər Əliyev təlimi kimi daxil olmuşdur. Azərbaycanın dövlət müstəqilliyinin inkişaf etdirilməsi təliminin də əsasları Heydər Əliyev tərəfindən yaradılmışdır.

Azərbaycanda milli birlik və həmrəylik ideyasının həyata keçirilməsi də azərbaycançılıq idealına xidmətin ifadəsidir. Azərbaycan dili kimi Azərbaycan xalqı anlayışının da ölkəmizdə bərqərar olması müstəqil dövlətin daxili sabitliyinin təmin edilməsinə, tolerantlıq mühitinin formalaşdırılmasına xidmət edir. Heydər Əliyevin Azərbaycan xalqı anlayışı azərbaycançılıq prinsiplərinin ölkəmizdəki bütün etnik qruplar tərəfindən vahid prinsip kimi qəbul edilməsinə imkan yaradan müdrik bir dövlətçilik təlimidir.

Dünya azərbaycanlıları anlayışı da Azərbaycanın böyük siyasətində Heydər Əliyevin adı ilə bağlı olan mühüm xidmətlərdən biridir. Ölkəmizdə 2001, 2006 və 2012-ci illərdə dünya azərbaycanlılarının üç dəfə qurultaylarının keçirilməsi möhtəşəm siyasi-tarixi hadisələrdir. Ulu öndərə məxsus "dünya azərbaycanlılarının bir vətəni var, bu – Azərbaycandır" kəlamı müasir dövrün azərbaycançılıq təliminin siyasi-ideoloji əsasını təşkil edir. Heydər Əliyevin azərbaycançılıq təlimi dünya azərbaycanlılarını tarixi vətən və vahid ideologiya ətrafında birləşdirir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 5 iyul 2002-ci il tarixli Fərmanı ilə Xarici Ölkələrdə yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsini yaratması dünya azərbaycanlılarının diaspora fəaliyyətinin təşkilinin milli dövlət siyasəti səviyyəsinə qaldırıldığını nümayiş etdirir. Azərbaycan diasporasının formalaşması və inkişafı sahəsində qazanılan nailiyyətlər məhz həyata keçirilən həmin siyasətin bəhrələridir. Azərbaycanın xarici siyasətinin uğurla həyata keçirilməsində dünya ölkələrindəki diaspora təşkilatlarımızın səmərəli fəaliyyəti atılmış addımların uzaqgörənliyini bir daha təsdiq edir. Heydər Əliyevin müdrik siyasəti azərbaycançılığı ölkə sərhədlərindən dünya birliyi səviyyəsinə çatdırmışdır. Azərbaycançılıq dünyada yaşayan bütün azərbaycanlıların birliyinin və həmrəyliyinin ideologiyasıdır. Görkəmli dövlət xadimi Heydər Əliyev ölkə miqyasında və dünya azərbaycanlıları müstəvisində azərbaycançılığın ən uca zirvələrini fəth etmişdir. Sözün obrazlı mənasında Heydər Əliyev dünyada azərbaycançılığın rəmzinə çevrilmişdir.

Hazırda Azərbaycan Respublikasında Heydər Əliyevin müstəqil dövlətçilik təlimi dəyişən və inkişaf edən reallıqlarla, zənginləşən yeni proseslərlə birlikdə ölkəmizdə yaradıcı şəkildə həyata keçirilir. Beləliklə, möhkəm bünövrələr, böyük sütunlar üzərində yeni və möhtəşəm Azərbaycan qurulur. Ölkəmizin Prezidenti İlham Əliyevin çoxcəhətli, məqsədyönlü və yorulmaz fəaliyyəti, dövlətçilik işinə çoxaspektli düşünülmüş yanaşmaları, analitik təfəkkürü, müdrik siyasəti, dərin düşüncəsi ilə müstəqil Azərbaycan dövlətçiliyinin yeni epoxası formalaşır.

Artıq hər kəsə yaxşı məlumdur ki, Ulu öndər Heydər Əliyevin dövlətçilik təliminə uyğun olaraq milli mənafenin, dövlətçilik maraqlarının daim üstün tutulması Prezident İlham Əliyev siyasətinin təməl prinsipidir. Prezident İlham Əliyevin siyasətində ən müxtəlif mövqelərdən, fərqli bucaqlardan ifadə olunan siyasi yanaşmaların hamısı azərbaycançılıq fəlsəfəsində, Azərbaycanın inkişafı naminə aparılan qlobal işlərdə tamamlanır. Azərbaycançılıq bu böyük və müdrik siyasətin cövhərini təşkil edir. İlham Əliyev XXI əsrdə müstəqil Azərbaycanın yeni siyasətini müəyyən edən, yeni istiqamətlər açan, yol göstərən görkəmli siyasi liderdir. Bacarıqlı dövlət başçısında bu tip yüksək siyasətçi məharətinin olması dövlətin inkişafının və xalqın

xoşbəxt həyatının böyük təminatıdır. Bu mənada yeni tarixi epoxada məhz İlham Əliyev kimi böyük siyasətlə yüksək idarəçiliyi özündə cəmləşdirən görkəmli bir dövlət xadiminin və mahir siyasətçinin Azərbaycana rəhbərlik etməsi ölkənin və xalqın tarixi şansıdır.

Görkəmli dövlət xadimi, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin milli, müstəqil dövlətçilik təlimi, sınaqlardan çıxmış bu siyasi kurs Prezident İlham Əliyevin çoxcəhətli fəaliyyətinin strategiyasını təşkil edir. Heydər Əliyev siyasi kursu – Azərbaycan dövlətinin ümummilli inkişaf strategiyasının nəzəri-ideoloji əsaslarından ibarətdir. Heydər Əliyev təlimi – ölkəmizin və xalqımızın dirçəliş və tərəqqi yolunun uzunmüddətli proqramıdır. Heydər Əliyev fəlsəfəsi Azərbaycan idealının ölkənin çoxcəhətli inkişafında özünütəsdiqinin dialektikasından ibarətdir. Ölkəmizin Prezidenti İlham Əliyev Heydər Əliyev siyasi kursuna dərin, birmənalı sədaqətində, ikincisi isə həmin sınaqlardan çıxmış siyasi kursu qətiyyətlə, dönmədən, ardıcıllıqla və yaradıcılıqla həyata keçirməkdə fərqli, üstün imkanlara və böyük potensiala, qeyri-adi enerjiyə və istedada malikdir. Böyük sürətlə yeniləşən Bakı şəhəri, xüsusi templə inkişaf edən Azərbaycan iqtisadiyyatı, həyata keçirilən möhtəşəm layihələr – Bakı-Tbilisi-Ceyhan neft boru xətti, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars-Naxçıvan dəmiryolu, hər gün müasirləşən Azərbaycan cəmiyyəti məhz Heydər Əliyev siyasi kursunun yaradıcı şəkildə, ardıcıllıqla davam etdirilməsinin real bəhrələri, sanballı töhfələridir.

Prezident İlham Əliyev Ulu öndər Heydər Əliyevin siyasi təlimini yeni dövrün və müasir Azərbaycanın reallıqları ilə daha da zənginləşdirən görkəmli siyasi xadimdir. Ümummilli liderimiz Heydər Əliyevdən sonrakı tarixi mərhələnin meydana çıxardığı siyasi-ictimai reallıqlar, iqtisadi-hərbi proseslər, ideoloji-etnik problemlər mövcud siyasi kursun işığında hadisələrin və gedişatların yenidən dəyərləndirilməsini tələb etdiyi məqamlarda Prezident İlham Əliyev istənilən məsələyə yaradıcı münasibət bəsləməyi, yeni müstəvidən yanaşmağı müvəffəqiyyətlə həyata keçirir. Bu mənada Prezident İlham Əliyev daim inkişafda olan, yeniləşib zənginləşən Heydər Əliyevçi siyasi təlimin, yeni dövlətçilik nəzəriyyəsinin yaradıcısıdır. Prezident İlham Əliyev – mövcud siyasi kursun inkişaf edən yeni epoxa ilə şərtlənən yeni dövrünün lideri səviyyəsində görkəmli təmsilçisidir. Prezident İlham Əliyev – Azərbaycanın sınanılmış yolu olan Heydər Əliyev yolunun böyük magistrallardakı qüdrətli sükançısıdır. Məhz İlham Əliyev yeni dünya düzənində Azərbaycana baş ucalığı gətirən böyük siyasətçidir. Azərbaycanın yeni tarixi epoxadakı yeni həyatı Prezident İlham Əliyevin yorulmaz fəaliyyətinin nəticəsidir. Bakının az qala hər gün, hər həftə keçirilən genişmiqyaslı böyük və əhəmiyyətli tədbirlərə layiqincə ev sahibliyi etməsi də Azərbaycanın dünyada söz sahibinə çevrilməsinin real göstəricilərindəndir. Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının üzvü statusunda fəaliyyət göstərməsi, beynəlxalq miqyaslı qərarlara imza atmaq, dünyaya müraciətlə bəyanatlar səsləndirmək haqqı qazanması Prezident İlham Əliyev siyasətinin təntənəsidir. Bütün bunlar Prezident İlham Əliyevin timsalında inanılmış, sınaqlardan çıxmış siyasi kursun ardıcıllıqla və qətiyyətlə davam etdirilməsinin nələrə qadir olduğunun, ölkəmizi hansı səviyyəyə gətirib çatdıra biləcəyinin gerçək təzahürləridir. Respublikamızda paytaxtımız Bakı ilə yanaşı, Azərbaycan regionlarının böyük sürətlə və hərtərəfli şəkildə inkişaf etdirilməsi hərəkatına Prezident İlham Əliyev rəhbərlik edir. Bu mənada o, yeni Azərbaycan adlı möhtəşəm əsərin yaradıcısıdır. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası və qədim diyarda dövlət başçısının rəhbərliyi ilə Ali Məclisin sədri Vasif Talıbovun qətiyyətlə həyata keçirdiyi genişmiqyaslı quruculuq işləri ölkənin yüksək inkişaf göstəricilərinin salnaməsində əhəmiyyətli yer tutur. Müstəqil Azərbaycan Respublikasının tərkibində blokada şəraitində Avropa standartları səviyyəsində yeni Naxçıvanın yaradılması ölkəmizin və xalqımızın mühüm nailiyyətlərindəndir. Bütün bunlar düşmən sərhədində ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanılması və daha da möhkəmləndirilməsi siyasətinin uğurla gerçəkləşdirilməsinə böyük təminatdır.

Görkəmli dövlət xadimi, Ümummilli liderimiz Heydər Əliyevin geniş siyasi-ideoloji və tarixi əhəmiyyətə malik olan azərbaycançılıq amalının və idealının işıqları müstəqil Azərbaycanın bu gününə də, sabahına da gur işıq salır.

“**Yeni Azərbaycan**”.-2013.-11 aprel.-N 62.-S.4.

## ŞƏRƏFLİ ÖMÜR YOLU

**Aydın Qasımov,**
MAA–nın iqtisadiyyat və hüquq fakültəsinin dekanı,
dosent

**Heydər Əlirza oğlu Əliyev 1923–cü il mayın 10–da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. O, 1939–cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir. 1941–ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş və 1944–cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir. Bu dövrdə təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964–cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967–ci ildən isə sədri vəzifəsində işləmiş, general–mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə o, Leninqradda (indiki Sankt–Peterburq) xüsusi ali təhsil almış, 1957–ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir.**

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969–cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur. 1982–ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ–nin rəhbərlərindən biri olmuşdur. Heydər Əliyev 20 il ərzində SSRİ Ali Sovetinin deputatı, 5 il isə SSRİ Nazirlər Soveti sədrinin müavini olmuşdur.

Heydər Əliyev 1987–ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katibi Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa vermişdir.

Heydər Əliyev 1990–cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində bəyanatla çıxış edərək Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz edərək 1991–ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

1990–cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev öncə Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991–ci 1993–cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992–ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

1993–cü ilin may–iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Azərbaycanın ozamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev 1993–cü il iyunun 15–də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyunun 24–də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993–cü il oktyabrın 3–də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. O, 1998–ci il oktyabrın 11–də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq yenidən Azərbaycan Respublikasının prezidenti seçilmişdir. 2003–cü il oktyabrın 15–də keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etmişdir.

Heydər Əliyev bir sıra beynəlxalq mükafatlara, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. O, dörd dəfə Lenin ordeni, Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif edilmiş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adını almış, bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunmuşdur.

Azərbaycanın 30 ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. Bu illər ərzində xalqın ictimai–siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz onun adı ilə bağlıdır.

Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır.

O, böyük siyasi və dövlət xadimi, xalqın şəksiz lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmiş, buna görə də Heydər Əliyev fenomeni həmişə diqqəti cəlb etmiş, dünya azərbaycanlılarının bu ümummilli liderinin heyranlıq doğuracaq dərəcədə coşğun siyasi fəaliyyəti istər ölkə, istərsə də dünya mətbuatında geniş işıqlandırılmışdır.

Azərbaycan xalqı milli dövlətçiliyinin dağılmaq təhlükəsi qarşısında qaldığını gördüyü və artıq ağır günlərini yaşadığı bir zamanda –1993–cü ilin iyununda mövcud hakimiyyətin dəyişilməsini təkidlə tələb etmiş və həmin vaxtdan taleyini yenə Heydər Əliyevə etibar etmişdir. Xalqının belə bir dar gündə qaldığını görüb onun təkidli dəvətini qəbul edən Heydər Əliyev Azərbaycanda yenidən böyük siyasətə qayıtmışdır. Xalq Heydər Əliyevin bu qayıdışını ümid və sevinclə qarşılamış, həmin günü isə Milli Qurtuluş Günü kimi müstəqil Azərbaycanın tarixinə yazmışdır.

Heydər Əliyev birinci dəfə hakimiyyətə gələndə –1960–cı illərin axırlarında da Azərbaycan iqtisadi və mədəni tənəzzül dövrünü yaşayırdı. O zaman məhz Heydər Əliyevin gəlişi ilə cəmiyyət həyatının bütün sahələrində sürətli yuksəliş, milli ruhun inkişafı və mədəniyyətin tərəqqisi dövrü yaşanmışdı.

Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələndə də yenə özünün siyasi bacarığı gücünə ölkəni vətəndaş müharibəsi təhlükəsindən, ictimai–siyasi pərakəndəlikdən xilas edə bilmiş və cəmiyyətin məqsədini, qayəsini öz varlığında, özünün güclü şəxsiyyətində təzahür etdirərək, doğma xalqını yenidən vahid bir məfkurə ətrafında səfərbər edib onun qəlbində sabaha inam hissi yaratmağı bacarmışdır.

Olduqca mürəkkəb bir dövrdə xalqın xidmətində dayandığını nümayiş etdirən Heydər Əliyev bir çox siyasi xadimin edə bilmədiyini və edə bilməyəcəyini gerçəkləşdirmiş, müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə XX və XXI əsrlərin tanınmış siyasi xadimləri arasında həmişəlik öz layiqli yerini tutmuşdur. Xalqımızın yetirdiyi nadir dövlət xadimlərindən olan Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Onun ürəyi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Heydər Əliyev bir dövlət başçısı kimi Azərbaycanın ən çətin anlarında onu xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, ölkəsini bəlalardan qurtarmağı bacarmışdır.

Təbiətin ona bəxş etdiyi bir çox nadir keyfiyyətlər sayəsində Heydər Əliyev uzaqgörən şəxsiyyət kimi tarixi hadisələrin gedişini irəlicədən müəyyən edə bilir, milli tarix üçün olduqca böyük əhəmiyyət daşıyan qərarlar qəbul edilən zaman əsl vətənpərvər mövqeyi nümayiş etdirir, tam qətiyyətlə hərəkət etməyi bacarırdı. Şəxsiyyətindəki qətiyyət onun geniş auditoriya qarşısında çıxışlar edərkən çox vaxt elə bədahətən söylədiyi fikirlərdə də parlaq əksini tapmışdır. Sarsılmaz məntiq üzərinə qurularaq qeyri–adi təsir gücünə malik məruzə və nitqləri Heydər Əliyevin fəlsəfi və siyasi dünyagörüşündəki dərinliyin və genişliyin açıq ifadəsidir.

Azərbaycan dövlətinin başçısı, Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyevin çoxəsrlik dövlətçiliyimiz tarixində müstəsna yeri vardır. Heydər Əliyevin fəaliyyəti öz əhəmiyyəti baxımından Azərbaycanın hüdudlarından çox–çox kənarlara çıxır. Müasir dövrdə nəinki Azərbaycanda, hətta postsovet məkanında, eləcə də dünya miqyasında gedən prosesləri Heydər Əliyevin şəxsiyyətindən və fəaliyyətindən kənarda təsəvvür etmək mümkün deyildi.

Müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, siyasi şüurun, həyatın son 30 ildən artıq bir dövrünü əhatə edən zaman kəsiyi böyük siyasi xadim kimi tanınan və dərin zəkaya, ensiklopedik biliyə, geniş dünyagörüşünə malik olan tarixi şəxsiyyətin–Heydər Əliyevin adı, əməli fəaliyyəti ilə, gerçəkləşdirdiyi konkret işlərlə bağlıdır. Bu mürəkkəb proseslər isə onun həm əməli fəaliyyətində, həm də fəlsəfi məfkurəsində, milli dirçəliş fəlsəfəsində öz əksini tapmışdır.

Heydər Əliyev zəmanəmizin böyük filosofu və mütəfəkkiri idi. Onun formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada xüsusi yerini müəyyən etmiş, milli dövlətçiliyimizin bünövrəsini təşkil edərək dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Azərbaycan ziyalısı, son yüzilliklərdə ən ciddi şəkildə Heydər Əliyevin həmin illərdəki fəaliyyəti ilə strateji dövlət siyasətinə, elmdən, sosiologiyadan və fəlsəfədən əməli siyasət müstəvisinə keçmişdir.

Heydər Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratmış və gələcəyə aparan yolları müəyyən etmişdir. Məhz buna görə də Azərbaycan tarixinin 1969–cu ildən bəri yaşanan dövrü Heydər Əliyevin adı ilə sıx bağlıdır və tariximizə Heydər Əliyev dövrü kimi həkk olunmuşdur. Bu dövrün isə Azərbaycanın gələcək tarixi taleyi baxımından başlıca məzmunu Azərbaycançılıqdır.

Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yolu, əslində, 1969–cu ildən–məhz onun hakimiyyətə gəlişindən sonra başlamışdır. Bu mənada, azərbaycançılığın ən parlaq səhifələri də elə həmin illərdən etibarən yazılmışdır. Heydər Əliyev elə o dövrdə mövcud olan ideologiyaya, əlbəttə, aşkarda daban–dabana zidd olmayan formada olsa belə, alt qatda ona müxalif qalaraq, Azərbaycanda milli ruhun tamamən

sıxışdırılmasına nəinki yol verməmiş, əksinə, onu yüksəltmək yolunda bütün imkanlardan maksimum dərəcədə istifadə etməyi bacarmışdır.

Bu baxımdan Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsindən sonrakı dövr milli özünüdərkin, milli özünəqayıdışın başlanğıcı kimi qəbul edilir. Tarixi məhz bu dövrdən etibarən başlanan Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya–siyasi istiqamətini də məhz xalqın milli özünüifadəsinin bütün forma və vasitələrinin geniş vüsət alması, milli qürur hissinin güclənməsi və milli şüurun yüksəlişinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi təşkil etmişdir. Onun respublikaya rəhbərlik etməyə başladığı ilk günlərdən Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileylərinin müntəzəm surətdə qeyd olunması bir ənənə halını almış, bu isə Azərbaycan xalqının ümumilli problemləri ilə sıx bağlı olub milli ruhun, milli özünüdərkin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qaytarılması, müstəqil dövlətçilik ideyalarının gerçəkləşməsi üçün zəmin yaratmışdır.

Heydər Əliyevin 1969–1982–ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə görülən işlər milli özünüdərk duyğularını ideoloji sistemin keçmiş buxovlarından xilas edərək xalqın tarixi yaddaşının özünə qaytarılması kimi təməl prinsiplər əsasında milli ruhun hədsiz yüksəlişini təmin etmiş, xalqımızın qəlbində illərdən bəri sıxılıb qalmış milli dövlətçilik ideyasının gələcəkdə böyük hərəkətverici qüvvəyə çevrilməsi üçün münbit zəmin yaratmışdır.

SSRİ–nin əyalətlərindən biri kimi baxıldığından, 60–cı illərin sonlarına doğru sosial–iqtisadi həyatın bütün sahələrinin geriləyi, mənfi meyillərin güclənərək getdikcə daha dərin kök saldığı, hakimiyyət uğrunda gizli rəqabətin artdığı və eybəcər şəkillər aldığı, bütün bunların isə xalqın milli–mənəvi birliyinə ziyan vurduğu Azərbaycanda hakimiyyətə gələn yeni rəhbərin birinci işi respublikada iqtisadi potensialın dağılmasının, ictimai–siyasi həyatda yaranmış tənəzzülün xalqın mənəvi–psixoloji vəziyyətinə mənfi təsir göstərə bilməsinin qarşısını almaqdan ibarət oldu. Respublikada kosmopolit bir əhval–ruhiyyə hökm sürdüyündən milli kadrların hazırlanması, milli dilin qəbul etdirilməsi və istifadə olunması, dövlət idarəetmə strukturlarında çalışan məmurların azərbaycanlı olmasına diqqət yetirilməsi istiqamətində nəinki ciddi addım atılmır, hətta bu yöndə edilə bilən təşəbbüslərin qarşısı alınırdı ki, belə hal da heç şübhəsiz, milli şüura malik olan, milli düşüncə ilə yaşayan və milli mentalitetin daşıyıcısı sayılan kadrların yetişməsinə çox ciddi manеələr törədirdi.

İqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuş respublikada yaranmış bu ağır vəziyyətdən çıxış yolu tapılmalı, onun iqtisadi inkişafını təmin etmək üçün prinsipial cəhətdən yeni konseptual səviyyədə yanaşma yolları işlənib hazırlanmalı, iqtisadiyyatda köklü struktur dəyişiklikləri aparmalı, təsərrüfatda və iqtisadi həvəsləndirmədə yeni üsullar tətbiq olunmalı idi. Heydər Əliyev əmin idi ki, millətin siyasi müstəqilliyinin özülünü onun iqtisadi cəhətdən azadlığı şərtləndirir.

O illərdə milli ideyanın qıtlığı üzündən baş alıb gedən, həm iqtisadi, həm mədəni tənəzzülə aparan mənfi hallar Heydər Əliyevin hakimiyyətə gəlişi ilə aradan qaldırıldı. Onun yorulmaz fəailiyyətinin nəticəsidir ki, 1970–1985–ci illər baş verən dəyişikliklərin miqyasına görə, ictimai və iqtisadi sahədəki dərin islahatların səciyyəsinə və xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçməsinə görə Azərbaycan quruculuq salnaməsində, sözün həqiqi mənasında, ən parlaq səhifələr təşkil etmişdir.

İndiki dövrdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, onun xarici iqtisadi əlaqələrinin sistemli olaraq genişlənməsi və dünya iqtisadiyyatına daha dərin bir şəkildə inteqrasiyası prosesi hələ 1970–1980–ci illərdə Heydər Əliyev tərəfindən təməli qoyulmuş potensiala əsaslanır.

Heydər Əliyevin strateji dövlətçilik proqramında azərbaycançılıq məfkurəsi ilə bağlı diqqəti bir də məhz belə bir cəhət çəkir ki, burada mənəvi, bədii, estetik intibah iqtisadiyyatında, sənaye, tikinti və təsərrüfatındakı böyük nailiyyətlərlə, güzərandakı yaxşılaşma və kütləvi ruh yüksəkliyi ilə birləşərək vahid axarda gerçəkləşmişdir.

70–ci illərdən başlayaraq, iqtisadi potensialın yaratdığı bu yüksəliş Azərbaycanı özünün iqtisadi inkişafının növbəti mərhələsi kimi tarixən, zəruri azadlıq mübarizəsinə də daxilən hazırlamışdır. 80–ci illərin sonu, 90–cı illərin əvvəlində müstəqillik hərəkatının geniş vüsət alması Heydər Əliyev dövründəki həmin iqtisadi yüksəliş və ona paralel olaraq mübarizlik ruhunun təşəkkül tapması sayəsində mümkün olmuşdur.

Totalitar sistemin elm və mədəniyyət xadimlərimizə, ziyalılara qarşı təzyiqləri, təqib və təhdidləri Sovetlər İttifaqının bir çox başqa respublikalarında özünü aşkar hiss etdirdiyi halda, qorxmaz, cəsur, möhkəm iradə sahibi olması sayəsində Heydər Əliyev Azərbaycanda yaradıcı insanlar üçün sərbəst düşünmək və düşündüyünü ifadə edə bilmək, alt qatda isə milli–mənəvi ideala, Azərbaycanın dövlətçilik tarixində suverenliyi, müstəqilliyi təmin edən dəyərlərə aparan yolları tapmaq imkanı verən bir şərait yaratmışdı.

Məhz həmin illər ərzində Bakıda ən böyük abadlıq işləri görülmüş, müasir Azərbaycan memarlığının əsərləri sayılan, respublikanın siyasi və mədəni həyatında böyük əhəmiyyəti olan bir sıra memarlıq ansamblı,

inzibati mərkəz, saray, institut, nəşriyyat, tədris korpusu, kompleks və özünün görkəmi ilə şəhərə rövnəq verən neçə–neçə digər bina tikilib istifadəyə verilmişdir.

Məhz Heydər Əliyevin təşəbbüsü sayəsində çox sayda memarlıq abidəsinin bərpası mümkün olmuşdu. O, Azərbaycan xalqının tarixi keçmişində, mənəvi mədəniyyəti tarixində iz qoymuş böyük şəxsiyyətlərin abidəyə çevrilməsinin xalqın milli varlığına, milli duyğularının güclənməsinə son dərəcə müsbət təsir edəcəyini çox gözəl bilirdi. Heydər Əliyevin mədəniyyətimizə, tariximizə dərin ehtiram nümayiş etdirərək göstərdiyi qayğı sayəsində Bakının ən görkəmli yerlərində xalqımızın milli varlığının daşıyıcısı olan böyük insanların əzəmətli heykəlləri ucaldılmış, böyük tarixi şəxsiyyətlərin hər biri üçün bir mədəniyyət mərkəzinə çevrilən ev–muzeyləri yaradılmışdır.

Heydər Əliyevin Azərbaycanın gələcəyini düşünərək, uzaqgörənliklə atdığı addımlardan biri də azərbaycanlı gənclərimizi gələcəyin müstəqil ölkəsi üçün gərəkli ixtisaslara yiyələnməkdən ötrü keçmiş Sovetlər İttifaqının nüfuzlu ali məktəblərinə göndərmək təcrübəsi kimi dəyərli təhsil ənənəsinin əsasını qoyması idi. Bu yolda Azərbaycanımızın elmi və kadr potensialı yüksəldiyi kimi, xalqımızın milli–mənəvi, əxlaqi dəyərlərinin təbliği də həyata keçirilirdi.

Heydər Əliyevin başçılığı ilə 1969–82–ci illərdə Azərbaycandakı intibahı şərtləndirən amillərdən biri respublikada təhsilin inkişafına xüsusi diqqət yetirilməsi, gəncliyin ana dilində təhsilinə üstünlük verilməsi olmuşdur. Milli hərbçi kadrların hazırlanması da xalqın müstəqil gələcəyini görən Heydər Əliyevdən ötrü xüsusilə böyük əhəmiyyətli məsələ idi.

Heydər Əliyevin gələcəyin müstəqil Azərbaycanı nəzərdə tutaraq, milli məfkurəsinin yüksəlişi və xalqın milli dövlətçilik arzularının daha da güclənməsi üçün dövlət quruculuğu sahəsində gördüyü mühüm işlərdən biri SSRİ–nin xarici siyasəti çərçivəsində də olsa, Azərbaycanın xarici aləmlə elmi–texniki, iqtisadi və mədəni əlaqələrinin genişləndirilməsi üçün göstərdiyi maksimum səylərdir. Bu məqsədlə Bakıda İttifaq və beynəlxalq əhəmiyyətli tədbirlər təşkil olunduğu kimi, SSRİ respublikaları və sosialist düşərgəsi ölkələrində, eləcə də digər xarici ölkələrdə Azərbaycan mədəniyyəti və incəsənəti günləri keçirilirdi ki, bütün bunlar son nəticədə Azərbaycanın xarici ölkələrlə və orada yaşayan azərbaycanlılarla əlaqələrinin qurulması üçün zəmin yaradır, azərbaycanlıların özünəməxsus tarixi, mədəni ənənələri olan xalq olaraq tanınmasını, Bakının isə həmin dövrdə dünya miqyasında tanınan bir elm və mədəniyyət mərkəzinə çevrilməsini təmin edirdi.

Bu, həmin dövr idi ki, hətta Moskvada, Sankt–Peterburqda çıxan jurnallarda işıq üzü görə bilməyən yazılar fəal vətəndaşlıq nümunəsi olan əsərlər kimi o dövrün mətbuatında dərc oluna bilir, şəxsən Heydər Əliyev səviyyəsində hər cür hücumdan və qəsdlərdən qorunurdu. Həmin illərdə mədəniyyət və incəsənət nümayəndələrinin tarixi keçmişimiz, eləcə də bu günümüzlə bağlı qadağa qoyulmadan milli ruhlu əsərlər yarada bilmələri üçün münbit şəraitin təmin olunması gənc qələm sahiblərinə xüsusi qayğı və diqqətlə yanaşılması ilə əlaqəlidir.

Hakimiyyətə gəldiyi ilk günlərdən Heydər Əliyevin gələcəyə hesablanan, milli dövlət quruculuğunun əsasını təşkil edən strateji proqramında Azərbaycan dili ayrıca diqqət mərkəzində idi. Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə Azərbaycan dilinə həqiqi dövlət dili statusu qazandırmağa yönəlmiş fəaliyyətinin bəhrəsidir ki, 1978–ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət statusu təsbit olundu. Dövr baxımından, sözün əsl mənasında, qəhrəmanlığa bərabər belə bir addım məhz gələcəyin müstəqil, yeni Azərbaycanı naminə atılmışdır. Azərbaycan dilinin idarəçilikdə geniş tətbiqi, demək olar ki, bütün böyük klassiklərin İttifaq miqyasında yubileylərinin keçirilməsi, Azərbaycan mədəniyyətinin ümumittifaq miqyasında ön mövqelərə çıxması, elmi, ədəbi, mədəni abidələrin planlı tətbiqi və nəşri–bütün bunlar Heydər Əliyevin gələcək milli dövlətçiliyimizin ideya təməlində dayanan siyasətinin əməli nəticələridir.

Heydər Əliyevin 1993–cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai–siyasi, sosial, iqtisadi, elmi–mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaranmış, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlanmışdır. Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən, Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmış, digər tərəfdən, atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salınmış, bunun da nəticəsində 1994–cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olunmuşdur.

Azərbaycan daxilində yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək 1994–cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması və onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Heydər Əliyevin rəhbərliyi altında aparılmış son dərəcə gərgin fəaliyyət nəticəsində Azərbaycan xalqının taleyi ilə pərdəarxası oyunlara, siyasi anarxiya və eksperimentlərə son qoyulmuş, ölkədə

cinayətkarlığın qarşısı bütünlüklə alınmış, qanunsuz silahlı dəstələr ləğv olunmuşdu ki, bunlar da Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün şərait yaratmışdı. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994–cü il oktyabr və 1995–ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı Heydər Əliyevin qətiyyəti sayəsində alınmış, dövlət müstəqilliyi qorunub saxlanmışdır. Məhz buna görə də ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi böyük vüsət almışdır ki, bunun da əsasını müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiyası təşkil edirdi. Ondan sonrakı dövrdə Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi şəxsən Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur, Heydər Əliyevin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur. Heydər Əliyevin fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi ardıcıl prioritet olmuşdur.

Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır.

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlamışdır.

Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Heydər Əliyevin fəal diplomatiyası nəticəsində Azərbaycan dünyanın demokratik dövlətlərinin və aparıcı ictimai təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişilməsinə nail ola bilmişdir. Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil etmişdir. Onun dünya təcrübəsinin bütün nailiyyətlərini, sivil beynəlxalq normaları özündə tam əks etdirən sülhsevər xarici siyasətinin əsasında isə, ilk növbədə, milli müstəqilliyin möhkəmləndirilməsi, dövlətlərin hüquqlarına hörmətlə yanaşılması, bütün mübahisəli məsələlərin sülh və danışıqlar yolu ilə həll edilməsi, qarşılıqlı surətdə faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq yaradılması, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətlərin aradan qaldırılması prinsipləri dayanırdı.

Heydər Əliyev 1992–ci ildən başlayaraq, türkdilli dövlətlər arasında iqtisadi, siyasi, ədəbi–mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində də gərgin fəaliyyət göstərmişdir. O, bütün Türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi şöhrət qazanmışdır.

Heydər Əliyev Azərbaycanın təbii sərvətlərindən, əlverişli coğrafi–strateji mövqeyinin üstünlüklərindən ölkənin milli mənafelərinə uyğun şəkildə istifadə edilməsinə yönəldilmiş irimiqyaslı beynəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində son dərəcə gərgin və səmərəli fəaliyyət göstərmişdir. Onun böyük siyasi iradəsi və müdrik uzaqgörənliyi sayəsində əhəmiyyətli beynəlxalq müqavilələrə imza atılmış və onların həyata keçirilməsinə başlanmışdır. Heydər Əliyevin təşəbbüsü ilə böyük siyasi məna kəsb edən bir sıra dünyamiqyaslı iqtisadi proqramların həyata keçirilməsində Azərbaycan aparıcı rol oynamışdır. Böyük bir coğrafi məkanda region qüvvələrinin birləşməsində də Heydər Əliyevin danılmaz xidmətləri olmuşdur.

Tarixin amansız və sərt sınaqları dövründə dünyanın ayrı–ayrı ölkələrinə səpələnərək yaşamaq məcburiyyətində qalmış azərbaycanlıların birlik və həmrəyliyinin əldə edilməsi işində Heydər Əliyevin müstəsna xidmətləri vardır. O, dünya azərbaycanlılarının təşkilatlanması və onların bir Vətən–müstəqil Azərbaycan ətrafında sıx birləşməsi üçün daim və əzmlə səy göstərmiş, bu istiqamətdə son dərəcə qiymətli qərarlar qəbul etmişdir. Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi planlar artıq Azərbaycanın gerçəkliyinə çevrilmişdir. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi vardır.

Heydər Əliyev bizim dahi müasirimizdir. Bu faktın özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Heydər Əliyev, eyni zamanda, taleyin xalqımıza bəxş etdiyi böyük tarixi şəxsiyyətdir. O,

Azərbaycanın tarixi inkişaf prosesinə təkan vermişdir. Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaratmışdır.

Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə–neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır.

**"Respublika".-**2013.-12 aprel.-N 75.-S.6-7.

# ŞƏXSİYYƏTİN QÜDRƏTİ VƏ EPOXANIN MAHİYYƏTİ HAQQINDA EPOPEYA

**İsa HƏBİBBƏYLİ,**
Naxçıvan Dövlət Universitetinin rektoru,
Milli Məclisin deputatı, akademik

**Görkəmli dövlət xadimi və böyük siyasətçi kimi ölkədə və dünyada qəbul olunmuş, geniş şöhrət qazanmış Heydər Əliyev Azərbaycan tarixində ümummilli lider statusu qazanmış birinci qüdrətli şəxsiyyətdir. Bu böyük dühanın ümummilli liderlik səviyyəsini fəth etməsi ən çətin və mürəkkəb məqamlarda ölkənin və xalqın tarixi taleyində həlledici rol oynamaq, xilaskarlıq vəzifələrini qətiyyətlə həyata keçirmək, bütün hallarda dövlətini və millətini irəli aparmağı bacarmaq sayəsində mümkün ola bilmişdir.**

Xalqımızın böyük oğlu Heydər Əliyev həm Sovetlər Birliyi dövrünün özünəməxsus siyasi-ideoloji çətinlikləri, həm də Azərbaycanda müstəqillik mərhələsinin başlanğıc illərinin mürəkkəblikləri şəraitində hər zaman liderlik funksiyasını yüksək səviyyədə həyata keçirməyi bacarmışdır. Dövlət rəhbəri olaraq fəaliyyət göstərdiyi 35 ilə yaxın bir dövrün Azərbaycan üçün bütün məsuliyyətli problemlərinin, ümummilli ideallarının həlli Heydər Əliyevin adı, mübarizəsi ilə üzvi surətdə əlaqədardır. Sovet hakimiyyəti illərində O, Azərbaycan Respublikasının rəhbəri kimi Kremlin sərt prinsiplərinin sədlərini bir qədər də aşaraq ölkəsində milli ideologiyanı gücləndirmiş, mərkəzdən Azərbaycana çatması nəzərdə tutulduğundan da qat-qat artıq imkanlar əldə edərək bütün sahələrin, həyat səviyyəsinin üstün inkişafına nail olmuş, azərbaycanlılardan ibarət hərbi kadrların formalaşdırılmasını təmin etmişdir. Müstəqillik şəraitində isə Heydər Əliyev Azərbaycanda, sadəcə, elan olunmuş, lakin hər gün itirilmək təhlükəsi qarşısında qalmış müstəqil ölkəni parçalanmaqdan, vətəndaş müharibəsindən, qardaş qırğınından, ucu-bucağı görünməyən xaosdan, hər cür mürəkkəblikdən və hərc-mərclikdən, sözün gerçək mənasında, xilas etmişdir. Bütövlükdə Azərbaycan Respublikasının son yarım əsrə yaxın dövrdəki varlığı, bütövlüyü, inkişafı Heydər Əliyev dühasının və onun böyük mübarizəsinin qanunauyğun nəticəsidir. Bütün bu mürəkkəb hərbi-siyasi, ictimai-iqtisadi, elmi-ədəbi və mədəni proseslərin hamısında daha böyük inkişaf və milli qurtuluş üçün həmişə düşünülmüş, məqsədyönlü, ardıcıl mübarizələrin aparılması, böyük ağıl və zəka ilə qətiyyətli addımların atılması tələb olunmuşdur. Hansı səviyyədən və ya bucaqdan baxmaqdan asılı olmayaraq, Heydər Əliyev həmişə bu mübarizələrin həm mərkəzində, həm də önündə olmuşdur. Ümummilli liderlik üçün daha zəruri amil hesab edilən ölkənin taleyi üçün ən məsuliyyətli məqamlarda, ümummilli məsələlərin həllində xalqla birlikdə olmaq, xalqı öz arxasınca aparmaq, səfərbər etmək istedadı da Heydər Əliyevin mühüm xarakterik cəhətlərindən biridir. Bütün bunlara görə görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideri kimi ümumxalq etiramını və rəyini ifadə edən böyük bir tarixi və fəxri ad qazanmışdır. Azərbaycan elmində və ictimai fikrində son qırx ildən artıq bir dövrdə Heydər Əliyev haqqında ən müxtəlif istiqamətlərdən çoxsaylı elmi-siyasi və bədii əsərlər yazılsa da, fikrimizcə, hələ də bu möhtəşəm statusun, ümummilli liderlik anlayışının tam mahiyyətinin Heydər Əliyevin timsalında layiq olduğu səviyyədə, sistemli şəkildə araşdırılması və ümumiləşdirilməsi mühüm və məsul vəzifələrdən biri olaraq qalır. Heydər Əliyevin belə geniş miqyasda təqdimatı üçün mükəmməl siyasi qabiliyyətə malik olmaq, keşməkeşlərlə zəngin olan epoxanın mahiyyətindən baş çıxarmaq və şəxsiyyətin qüdrətinin fəlsəfəsini açmağı bacarmaq tələb olunur. Ona görədir ki, Heydər Əliyev fenomenindən yazılan ən yaxşı əsərlərdə hələ ki, əsasən fraqmentallıq, yəni bu mövzu ilə əlaqədar seçilmiş, müəyyən olunmuş xüsusi bir hadisənin və ya istiqamətin dərinliklərinə və incəliklərinə varmaq cəhdləri, yaxud da elmyönlü ümumi publisist təbliğat istiqaməti üstünlük təşkil edir. Bütün bunlara görə tanınmış yazıçı-publisist, filologiya üzrə fəlsəfə doktoru Elmira Axundovanın yeddi kitabdan ibarət olan altı cildlik "Heydər Əliyev. Şəxsiyyət və zaman" adlı əsəri görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin çətin, keşməkeşli mübarizələrlə zəngin olan mənalı həyatını, çoxcəhətli fəaliyyətini geniş planda zamanın və onun şəxsiyyətinin fonunda açılıb aydınlaşdırılmasına, sistemli və ardıcıl şəkildə, mümkün olduqca dərindən və əsaslı surətdə araşdırılıb ümumiləşdirilməsinə həsr olunmuş birinci monumental əsərdir. İlk dəfədir ki, Heydər Əliyevin XX əsrin böyük çətinliklərinin, mürəkkəbliklərinin, maneələrinin ağır məngənəsindən keçərək ictimai-siyasi mühitə yol açması, cəmiyyətin bütün dolaylarından və sərt aşırımlarından adlayaraq ölkəsinin və xalqının ümummilli lideri səviyyəsinə çatması prosesləri özünün dərin qatları, çətinlikləri, reallıqları, gedişatı ilə birlikdə Elmira Axundovanın "Heydər Əliyev. Şəxsiyyət və zaman" adlı çoxcildliyində böyük masştabda təqdim olunur. Elmira Axundovanın "Heydər Əliyev. Şəxsiyyət və zaman" adlı monumental əsəri Azərbaycan Heydər Əliyevşünaslığının möhtəşəm abidəsidir. Haqqında başqa ölkələrdə və

xarici dillərdə də böyüklü-kiçikli çoxsaylı əsərlərin yazıldığını nəzərə alsaq, "Heydər Əliyev. Şəxsiyyət və zaman" əsərini Azərbaycan Heydər Əliyevşünaslığının beynəlxalq aləmə təqdim edə biləcəyi ən mükəmməl bioqrafik roman da adlandırmaq mümkündür. "Heydər Əliyev. Şəxsiyyət və zaman" - Heydər Əliyevin qüdrətli şəxsiyyətinin möhtəşəm romanı, bu görkəmli dövlət xadiminin epoxasının publisist fəlsəfəsidir. Bu, Heydər Əliyev kimi qüdrətli İnsanın şəxsiyyətinin bütövlüyü və əzəmətinin, dövrünün tarixi məsuliyyətinin və mürəkkəbliklərinin fonunda təqdim edən mükəmməl sənədli-bədii əsərdir. Bu, Azərbaycan Heydər Əliyevşünaslığının böyük bir dövrünün qanunauyğun yekunu, bundan sonrakı inkişafının möhkəm, etibarlı bünövrəsi və bələdçisi ola biləcək qiymətli örnəkdir.

"Heydər Əliyev. Şəxsiyyət və zaman" kitabının birinci cildində Elmira Axundova bu əsəri 2003-cü ildən böyük dövlət xadiminin xeyir-duası ilə yazmağa başladığını bəyan edir: "2003-cü ilin aprel ayındakı mənim üçün unudulmaz (əfsus ki, sonuncu dəfə qismət olan) söhbətimizdə Heydər Əliyevə bildirdim ki, onun siyasi bioqrafiyası üçün material toplamağa başlamışam. Cavabı dəqiq yadımdadır: "Yaz, ...səndə bu, pis alınmır". "Bu, Elmira Axundovanın dövlət başçısından onun haqqında kitab yazmaq üçün əldə etdiyi razılığın, mandatın tarixi kimi əhəmiyyətli faktdır. Ancaq elə Elmira Axundovanın yaradıcılıq fəaliyyətinə verilmiş yüksək qiymətin ifadəsi kimi səslənən "Səndə bu, pis alınmır" sözlərindən də bilinir ki, həyatının bütün məqamlarında mütaliəyə həmişə xüsusi diqqət yetirmiş Heydər Əliyev həmin vaxta qədər Elmira Axundovanın Azərbaycanda gedən ictimai-siyasi proseslərə dair və şəxsən onun özünün haqqında yazdıqlarında bioqrafik əlamətləri, memar cizgilərini görmüşdür. Elmira Axundovanın imzası ilə ulu öndər hələ 1990-cı ilin yay aylarında müəllifin özünü tanımadan Moskvada siyasi mühacirət həyatı yaşadığı gərgin illərdə oxuduğu onun 2 iyun 1990-cı ildə "Bakinskiy raboçiy" qəzetində çap edilmiş "Vse mı vışli iz proşloqo" adlı məqaləsi vasitəsilə tanış olmuşdur. Əslində, bu kiçik yazı Elmira Axundovanın görkəmli dövlət xadimi Heydər Əliyevin dövrü, bioqrafiyası, fəaliyyəti və şəxsiyyəti haqqında ilk məqaləsi idi. Çoxlarının məkrli siyasi məqsədlərlə, yaxud sifarişlə "durğunluq dövrü" barədə söz açdıqları bir vaxtda Elmira Axundovanın həmin mərhələdə o dövrün özünəməxsusluqlarını obyektiv mövqedən təhlil edib dəyərləndirməsi Moskvada ikən Heydər Əliyevin diqqətini cəlb etmişdi. Sonra 1991-ci ilin yanvar ayında artıq "Literaturnaya qazeta"nın xüsusi müxbiri kimi Naxçıvana gələrək burada yaşayan Heydər Əliyevdən müsahibə alan Elmira Axundovanın hazırladığı və ünvanladığı sualların içərisində istər-istəməz bioqrafik motivlərə də yer ayrılmışdı. Doğrudur, o zaman Elmira Axundovanın müsahibəsini nə "Literaturnaya qazeta", nə də Azərbaycan mətbuatı çap etmişdi. Elmira Axundovanın müsahibəsi yazıldığı vaxtdan üç ay sonra ilk dəfə 1 may 1991-ci ildə "Azərbaycan" qəzetində, daha sonra isə genişləndirilmiş halda Milli Məclisin orqanı olan "Azərbaycan" qəzetinin 5-8 aprel 2004-cü il tarixli sayında işıq üzü görmüşdü. Bundan başqa, Elmira Axundovanın 2003-cü ildə Bakıda nəşr olunmuş "Bu - bizik" və "Həqiqət anları" kitablarındakı onun Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müəyyən etdiyi nümayəndə heyətinin tərkibində dünyanın müxtəlif ölkələrində dövlət əhəmiyyətli mötəbər tədbirlərdən hazırladığı və çap etdirdiyi məqalələr, əslində, görkəmli dövlət xadiminin yeni epoxadakı bioqrafiyasının əsas məzmununu əks etdirirdi. Ciddi bioqrafik əsərlər üçün isə zəngin materialların toplanması, çoxsaylı informasiyaların əldə edilməsi ilə yanaşı, müəllifin qəhrəmanını yaxından tanıya bilməsi, onunla ünsiyyətdə olması, heç olmasa onu yaxından müşahidə edə bilməsi də mühüm şərtlərdən biridir. Bu mənada, Prezidentliyi dövründə, yəni 1993-2003-cü illərdə jurnalist kimi Heydər Əliyevin yaxın əhatəsində olması, səfərlərdə, tədbirlərdə, qəbullarda iştirakı Elmira Axundovanın bu böyük şəxsiyyətin bioqrafiyası ilə yanaşı, bütün cizgilərini, şəxsi keyfiyyətlərini də müşahidə etməsinə, öyrənib əks etdirməsinə münasib şərait yaratmışdır. Bakıda 2003-cü ildə çap olunmuş "Həqiqət anları" kitabında Elmira Axundova məsələnin bu cəhətinin əhəmiyyətindən bəhs edərək yazmışdı: "Mən xüsusi iftixar hissi ilə demək istəyirəm ki, mənə axırıncı on ildə Heydər Əliyevin ətrafında olmaq və birbaşa yaxından bu görkəmli siyasətçinin tarixin bu yeni dövründə, yeni siyasi və sosial-iqtisadi şəraitdə anadandoğma Liderin özünün böyük potensialını necə həyata keçirdiyini müşahidə etmək şərəfi qismət olmuşdur". Buna görə də Elmira Axundova hələ xüsusi olaraq memuar, yaxud bioqrafiya yazmaq niyyətində olmadığı illərdə də əslində, Heydər Əliyevin həyatının və çoxcəhətli fəaliyyətinin gündəlik, həftəlik salnaməsini yaratmaqla məşğul olmuşdur. Bu mənada, Elmira Axundovanın "Heydər Əliyev. Şəxsiyyət və zaman" çoxcildliyinin birinci cildinin Bakıda çapdan çıxdığı 2007-ci ilə qədər yazdıqları kitablar və məqalələr bu möhtəşəm əsərin məşqləridir. Azərbaycanda Heydər Əliyevin ətrafında və onun rəhbərliyi ilə müstəqillik uğrunda gedən mübarizənin ən gərgin məqamlarını əks etdirən "Naşirin qətli", "Şüşə saray" kimi bədii-publisist əsərlər "Heydər Əliyev. Şəxsiyyət və zaman" epopeyasının proloqu kimi səslənir.

Müxtəlif ədəbiyyatlarda "Heydər Əliyev. Şəxsiyyət və zaman" əsəri roman - tədqiqat adlandırılmışdır. Çoxcildliyə qiymətli ön söz yazmış məşhur Oljas Süleymenov da əsərdən roman - tədqiqat kimi bəhs etmişdir. Kitabın müxtəlif illərdə çap olunmuş cildlərindəki annotasiyalarda həmin sözlər işlədilmişdir. Heç şübhəsiz, bu məqamda müəllifin müraciət etdiyi şəxsiyyət və mövzu ətrafında axtarışlar aparması və üz tutduğu problemə

tədqiqatçı prizmasından yanaşması əsas götürülmüşdür. Doğrudur, bu yanaşmada ilk baxışda roman anlayışı ilə elmi axtarışları əhatə edən "tədqiqat" sözünün tam da uyğun gəlmədiyi görünə bilər. Lakin əsərin sənədli roman olduğunu nəzərə alsaq, onda buradakı "tədqiqat" ifadəsinin zəruriliyi və əhəmiyyəti bütün aydınlığı ilə nəzərə çarpar. Elmira Axundova "Heydər Əliyev. Şəxsiyyət və zaman" kitabında bir neçə məqamda ciddi və mühüm tədqiqatçılıq işi görmüşdür. Hamı kimi biz də o fikirdəyik ki, Elmira Axundova "Heydər Əliyev. Şəxsiyyət və zaman" çoxcildliyini yazmaq üçün dönə-dönə çoxsaylı arxivlərin və kitabxanaların qapısını açmış, bir neçə ölkədə - Azərbaycanda, Rusiyada, Türkiyədə, Gürcüstanda, Ukraynada yaşayan və Heydər Əliyevi tanıyan, bu böyük şəxsiyyətlə əlaqədar olan yüzlərlə insanlarla görüşüb, onların müsahibələrini diktafona yazmışdır. O, neçə kilometrlərlə uzunluğu olan diktafon lentlərində yazılanları tədqiqat materialı səviyyəsinə gətirmək üçün bu materialları səsdən yazıya çevirmək kimi böyük zəhmətin də öhdəsindən gəlmişdir. Elmira Axundova dünya şöhrətli Heydər Əliyevin şəxsi arxivinin də ilk araşdırıcılarından biri olmağın məsuliyyətini də, şərəfini də yaşamışdır. "Şəxsiyyət və zaman" kitabı üçün Elmira Axundovanın uzun illər ərzində topladığı çoxsaylı dövrü mətbuat materialları, zəngin arxiv sənədləri, müxtəlif mənbələrdən əldə etdiyi fotoqalareya, üzə çıxardığı nadir əlyazmaları, istinad etdiyi kitablar nəhəng bir xəzinə sayıla bilər. Bu qədər zəngin və qiymətli irsi toplayıb, qruplaşdırıb sistemləşdirmək və onlardan yerli-yerində istifadə etmək nəinki böyük zəhmət, həm də ciddi bir fədakarlıq və ondan da ciddi bir tədqiqatçılıq səriştəsi tələb edir. "Heydər Əliyev. Şəxsiyyət və zaman" kitabı göstərir ki, Elmira Axundova bu mühüm əhəmiyyətə malik olan işi müvəffəqiyyətlə həll etmişdir. Bundan başqa, bu vaxtadək Azərbaycanda "Heydər Əliyev. Şəxsiyyət və zaman" kitabına bənzər quruluşa malik olan digər bir əsərin olmadığını nəzərə alsaq, onda demək lazımdır ki, Elmira Axundova bu kitabın modelini yaratmaqla da böyük tədqiqatçılıq işini yerinə yetirmişdir. "Heydər Əliyev. Şəxsiyyət və zaman" kitabı çoxsaylı bütün əhəmiyyətli cəhətləri ilə birlikdə həm də orijinal strukturu ilə də yeni və bənzərsizdir. Hələ ki, Azərbaycan elmi fikrində və ədəbiyyatında "Heydər Əliyev. Şəxsiyyət və zaman" modelində və həcmində başqa bir əsərin yarandığını müşahidə etmirik. Elmira Axundova "Heydər Əliyev. Şəxsiyyət və zaman" kitabı ilə ümummilli lider səviyyəsində qəbul olunmuş böyük şəxsiyyətin tale romanının mükəmməl modelinin də yaradıcısıdır. Bu zaman o, "Görkəmli adamların həyatı" (JZL) seriyasından olan kitablara məxsus bədii - publisist yanaşmalarla və ya tərcümeyi-hal anlarını qabartmaqla ciddi tədqiqat əsərlərindən gələn elmi prinsipləri vəhdətdə nəzərə almaqla və bütün bunlara həm də böyük siyasətin gözü ilə baxmağı bacarmaqla tam yeni bir əsərin modelini meydana qoymuşdur. Bu isə Heydər Əliyev dühası və şəxsiyyəti haqqında onun epoxası və müasirləri ilə birlikdə möhtəşəm bir əsərin meydana çıxması ilə nəticələnmişdir. Buna görədir ki, Elmira Axundovanın kitabında Heydər Əliyev şəxsiyyətinin qüdrətinin bütün reallıqları ilə birlikdə ifadə olunması ilə yanaşı, bu əsərdə həm də özünün yazdığı kimi, "Zaman dilə gəlir, Dövr danışır". Müxtəlif illərdə yazılmış yeddi kitabdan ibarət olan altıcildlik kitab böyük bir tarixi dövrü və müxtəlif ictimai quruluşda (çar Rusiyası, sovet hakimiyyəti, keçid dövrü və müstəqillik mərhələsində) baş verən hadisələri əks etdirsə də, mövzusu və süjeti etibarilə bütöv bir tamdır. Buna görə də əhatə etdiyi yüzillikdən də artıq dövrün qabarıb çəkilən ardıcıllığı qorunur, hətta 2007-ci ildən etibarən yeddi il ərzində çap olunan ayrı-ayrı cildlər də bir-birinin ardınca eyni vaxtda oxuculara çatdırılmış əsərlər təəssüratı yaradır. Qalın çoxcildliklərin bir neçə cildinin sonunda "ardı var" sözlərinin yazılması sanki maraqla izlənilən genişhəcmli bir məqaləni axıra çatdırmaq üçün qəzetlətin sonrakı saylarını gözlətmək məqsədilə istifadə olunmuş üslubda dözümlü bir intizarın cəlbedici aurasını formalaşdırır. Halbuki "Heydər Əliyev. Şəxsiyyət və zaman" çoxcildliyinin birinci cildinin nəşr olunduğu 2007-ci ildən artıq altı il keçir. Bu dövr ərzində "Heydər Əliyev. Şəxsiyyət və zaman" çoxcildliyinin ayrı-ayrı cildlərinin müxtəlif illərdə çap edilməsi, oxucu mühitinə daxil olması, ölkə miqyasında və xaricdə geniş müzakirələrinin keçirilməsi, haqqında yazılan resenziyalar, oxucu məktubları, mütəxəssis rəyləri o qədər bir-birini izləmiş və tamamlamışdır ki, zaman məsafəsini də sanki unutdurmuşdur. Kitabların həcm etibarilə də kifayət qədər sanballı olduğunu nəzərə alsaq, onda birinci cilddən altıncı cildə və yeddinci kitaba qədər keçilən yolun kəmiyyət etibarilə bir qədər artıq görünsə də, uzun axtarış və yaradıcılıq prosesi baxımından çox da olmadığını təsəvvür etməyə imkan verə bilər. Belə ki, Bakıda "Ozan" nəşriyyatında 2007-ci ildə çapdan çıxan "Heydər Əliyev. Şəxsiyyət və zaman" kitabının birinci cildinin 351 səhifədən, ikinci cildin 783, üçüncü cildin 802, dördüncü cildin 326, "SBS" nəşriyyatının təqdim etdiyi beşinci cildin 756, ikicildlik altıncı cildin birinci hissəsinin 500, ikinci hissəsinin isə 495 səhifədən ibarət olması, bütövlükdə yeddi ilə yaxın bir müddət ərzində 4313 səhifəlik sanballı bir kitabın meydana çıxması yalnız və yalnız ardıcıl və yaxşı mənada inadkar axtarışların sanballı məntiqi yekunudur. Altıcildlik yeddi kitabda üst-üstə 300 elmi mənbədən və arxiv sənədindən, 522 fotomaterialdan istifadə olunması da illər üzrə çəkilən zəhmətin miqyasını təsəvvür etməyə imkan verir. Müəllifin Azərbaycanla yanaşı, bir-birindən uzaq-yaxın məsafələrdə müxtəlif coğrafiyalarda yaşayan təxminən 150 nəfər fərqli statusa və dünyabaxışa malik insanlarla görüşüb müsahibələr alması və həmin audiomaterialın üzərində əlyazmaçı və tədqiqatçı işi aparması əhatə olunan zaman çərçivəsində görülən işin böyük zəhmətinə

qatlaşan insanın seçdiyi mövzuya və bağlı olduğu ideala dərin sədaqətindən xəbər verir. Əks halda, bu qədər əhəmiyyətli olduğu qədər də ciddi, məsuliyyətli və gərgin zəhmət tələb edən mühüm bir işi fədakar bir müəllif deyil, bəlkə də bütöv bir elmi-tədqiqat institutunun kollektivi qeyd olunan müddətə bu səviyyədə yerinə yetirə bilməzdi. "Heydər Əliyev. Şəxsiyyət və zaman" çoxcildliyi yazıçı-publisist Elmira Axundovanın ürəkdən bağlı olduğu, sədaqətlə xidmət etdiyi Heydər Əliyev dövlətçilik məktəbinə, ölkəmizin müstəqillik ideallarına sanballı hesabatı, dəyərli bir xidmətidir.

Azərbaycan oxucusunun artıq tanış olduğu, mütaliə mühitimizdə özünəməxsus möhkəm yer tutan "Heydər Əliyev. Şəxsiyyət və zaman" çoxcildlik kitabı görkəmli dövlət xadimi və böyük siyasətçinin çətin və şərəfli ömür yolunun, müqəddəs ideallarının, çoxcəhətli fəaliyyətinin, ardıcıl və məqsədyönlü mübarizəsinin bir-birini üzvi surətdə tamamlayan ayrı-ayrı mərhələlərini bütöv bir tamın bölünməz hissələri kimi oxuculara təqdim edir. Çoxcildlik kitab fərqli epoxalarda yaşayan, lakin həmişə Azərbaycan idealına sədaqətlə xidmət edən Heydər Əliyev fenomeninin, siyasi dühasının qüdrətini, əzəmətli şəxsiyyətin formalaşmasının qaynaqlarını, fəlsəfəsini və imkanlarını dialektik inkişaf yolu əsasında, təkamül proseslərinin işığında dolğun və sanballı bir səviyyədə mənalandırır. Elmira Axundova Heydər Əliyev dühasının möhtəşəmliyinin səbəblərini axtararkən tamlıq naminə genetik kodların araşdırılmasına və izahına da diqqət yetirməyi zəruri sayaraq nəsil şəcərəsinin öyrənilməsinə də işıq salmışdır. Çoxcildliyin birinci cildindəki "Ömür yolunun başlanğıcı" bölməsində mənsub olduğu nəslin əcdadları, onların tarixdə böyük yeri olan Nadir Şah Əfşar dövründən hərbi yürüşlərdə iştirakı, Azərbaycan xanlıqlarını birləşdirmək uğrundakı səyləri, sonralar Ermənistanın bədnam daşnak hərəkatının təzyiqlərinə mərdliklə sinə gərmələri, XX əsrin əvvəllərindən etibarən Naxçıvanda məskunlaşmaları barədə tutarlı dəqiq mənbələr əsasında qiymətli məlumatlar və hekayətlər nəzərə çarpdırılmışdır. Azərbaycana Heydər Əliyev kimi görkəmli dövlət xadimi və bir çox tanınmış ziyalılar bəxş etmiş bu şərəfli nəslin qoca Şərqin qədim qapısı Naxçıvanda keçdiyi həyat yolu ölkənin gələcək Prezidentinin dünyaya gəldiyi "kiçik Vətənin" bu qüdrətli dövlət xadimini böyük ideallar uğrunda mübarizəyə, azərbaycançılıq ruhunda formalaşmasının möhkəmlənməsinə hazırlayan böyük məktəb səviyyəsində ümumiləşdirilmişdir. Elmira Axundova Heydər Əliyev kimi güclü və təkrarsız şəxsiyyətin təşəkkülü prosesində Naxçıvan mühitinin, qədim Azərbaycan tayfalarının adı ilə bağlı olan Əlixan və Sahab məhəllələrini, böyük rus şairi Puşkinin adını daşıyan küçəni, o zaman kinofilmlərin nümayiş etdirildiyi, həvəskar kollektivlərin tamaşalar hazırlayıb göstərdikləri Telman Klubunu əhatə edən məhəllə mühitindən adlı-sanlı müəllimləri, özünəməxsus ənənələri ilə tanınan orta məktəb və universitetə bərabər bilik və dünyagörüş verən Pedaqoji Texnikum mühitinin rolunu bütün incə detalları ilə açıb göstərmişdir.

Həmçinin Elmira Axundovanın axtarışlarına görə həmin gənclik illərində "Heydər Əliyevin mənəviyyatında... Cəlil Məmmədquluzadə və Hüseyn Cavid daha parlaq iz qoyub... Pedaqoji Texnikumda oxuyarkən Cəlil Məmmədquluzadənin Naxçıvan Dram Teatrında uğurla tamaşaya qoyulmuş "Ölülər" pyesi ilə tanış olduqdan sonra gənc Heydər Əliyev, sözün həqiqi mənasında, sarsıntı keçirmişdi... Gənc Heydər Əliyev Hüseyn Cavidin cahanşümul əsərlərindən xeyir və şərin mahiyyəti, varlığın mənası kimi məsələlərə cavab axtarırdı". Bu illərdə Heydər Əliyev artıq məktəbin maarifçi mühiti ilə yanaşı, ümumşəhər tədbirlərində də gəncliyi uğurla təmsil etmiş, teatr tamaşalarında rolların ifaçısı kimi tanınmış, liderlik qabiliyyəti ilə fərqlənmişdir. Naxçıvan Daxili İşlər Komissarlığında, Muxtar Respublika Xalq Komissarları Sovetində, Naxçıvan Dövlət Təhlükəsizlik Komitəsində də Heydər Əliyevin xüsusi qabiliyyəti ilə diqqəti cəlb etməsi də həmin dövrün şahidlərinin gözü və sözü ilə real hadisələrin fonunda nəzərə çarpdırılmışdır. Ümumiyyətlə, əsərdə görkəmli şəxsiyyətin tərcümeyi-halının Naxçıvan dövrü həyatının bütün sonrakı dövrlərinin möhkəm təməli, əsas hərəkətverici qüvvəsi kimi səciyyələndirilir. Birinci cilddə, eyni zamanda, Heydər Əliyevin Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsindəki xidmətinin çətin, keşməkeşli illəri və yolları şərh olunarkən onun yüksək idarəçilik məharətinə, dərin dövlətçilik düşüncəsinə, fəaliyyətinin strategiyasını və taktikasını dəqiq müəyyən etmək qabiliyyətinə malik olması, sıravi əməkdaşdan məsuliyyətli bir orqanın rəhbəri vəzifəsinə çatması, Azərbaycan tarixində ilk dəfə azərbaycanlı şəxsin təhlükəsizlik sistemində general-mayor rütbəsinə yüksəlməsi zəngin həyat materialları, müasirlərinin xatirələri və arxiv sənədləri ilə əsaslandırılmışdır. Bu mərhələdə ölkənin yaradıcı ziyalıları ilə geniş əlaqələr yaratması, müxtəlif yollarla milli ziyalıları müdafiə etməsi, mərkəzin əks mövqeyinə baxmayaraq, təhlükəsizlik orqanlarında kadrların milliləşdirilməsi prosesini həyata keçirmək istiqamətində ciddi addımlar atması, bir sıra böyük hadisələrin açılmasına başçılıq etməsi Heydər Əliyevin artıq azərbaycançı məfkurəyə malik dövlət xadimi kimi ölkəmiqyaslı, ümumdövlət vəzifələrinin həllinə hazır olduğunu xarakterizə edən hadisələr səviyyəsində ümumiləşdirilir.

"Heydər Əliyev. Şəxsiyyət və zaman" çoxcildliyi görkəmli dövlət xadimi kimi Heydər Əliyev dühasının ən parlaq səhifələrindən biri onun Azərbaycan Respublikasına rəhbərliyinin birinci mərhələsinin geniş təqdimatıdır. Azərbaycanı keçmiş Sovetlər İttifaqında geridə qalmış regiondan hərtərəfli inkişaf etmiş

respublikaya çevirmiş, cəmiyyət həyatının bütün sahələrində qlobal dəyişikliklərə nail olmuş, "Qoy ədalət zəfər çalsın" çağırısı ilə dünyaya səs salmış, Azərbaycan dilini Konstitusiyaya dövlət dili kimi saldırmağı bacarmış və mədəniyyətimizi beynəlxalq mövqelərə çatdırmış Heydər Əliyevin adının əfsanəyə çevrilməsi Elmira Axundovanın araşdırmalarında və təhlillərində, həyat hekayələrində qabarıq şəkildə nəzərə çarpdırılır. İkinci clddəki "Heydər Əliyev və onun komandası", "Heydər Əliyev və Leonid Brejnev", "İran inqilabı və Kreml siyasəti" bölmələrindən hər biri həm problemin miqyasına, siyasi mahiyyətinə, həm də materialın zənginliyinə görə doktorluq dissertasiyası səviyyəsində görünür. Aparılan araşdırmalardan, çıxarılan nəticələrdən aydın olur ki, Heydər Əliyev hələ XX əsrin səksəninci illərinin əvvəllərində Azərbaycana rəhbərliyinin birinci dövründə keçmiş Sovetlər İttifaqı məkanında və beynəlxalq aləmdə yüksək liderlik qabiliyyətinə malik olan görkəmli dövlət xadimi kimi şöhrət qazanmışdır. Xalqımızın Heydər Əliyevi ümummilli lider kimi qəbul etməsi də bu qüdrətli şəxsiyyətin Azərbaycana rəhbərliyinin birinci dövründən başlanmışdır. Fikrimizcə, "Heydər Əliyev. Şəxsiyyət və zaman" çoxcildliyindəki Heydər Əliyevin həyatı və fəaliyyətinin Moskva-Kreml mərhələsi onun sovet hakimiyyəti dövründəki fəaliyyətini tamamlayır. Heydər Əliyevin SSRİ kimi nəhəng dövlətin Baş nazirinin birinci müavini, Siyasi Büronun üzvü səviyyəsindəki fəaliyyətinin ən müxtəlif istiqamətlərinin detallarına qədər dəqiq təhlil edilməsi nəticə etibarilə bu böyük şəxsiyyətin cəsarəti və iradəsini, müdriklik və uzaqgörənliyini, eyni zamanda, onun yaşadığı epoxanın mürəkkəb mahiyyətinin aydınlaşdırılmasını şərtləndirmişdir. Heydər Əliyev və Yuri Andropov münasibətlərinin araşdırılması Sovetlər İttifaqında islahatların keçirilməsində, Heydər Əliyev - Mixail Qorbaçov əlaqələrinin açıqlanması isə Kremldaxili qabarma və çəkilmələrdə Heydər Əliyevin üstün yerinə və roluna aydınlıq gətirmişdir. Ümumiyyətlə, Kreml zirvəsinin fəthi və Moskva dövrünün geniş və əsaslandırılmış təhlili bütövlükdə Sovetlər İttifaqının XX əsrin səksəninci illərindəki vəziyyətini, ölkədə yaranmış böhranı və ziddiyyətləri, Kremldaxili qruplaşmaları bütün reallıqları ilə təsəvvür etməyə imkan yaradır. Bu məqamda Elmira Axundovanın yazıçılıq və tədqiqatçılıq qabiliyyəti ilə yetkin siyasi düşüncəsi yanaşı addımlayır. "Böyük ömrün xronikası" adlanan dördüncü kitabda isə Elmira Axundova bioqraf-tarixçi missiyasını uğurla yerinə yetirir.

"Heydər Əliyev. Şəxsiyyət və zaman" çoxcildliyinin zirvəsini Azərbaycanın müstəqillik dövrünə həsr olunmuş beşinci və altıncı cildlər təşkil edir. Bu cildlər siyasi mahiyyətinə və elmi-ədəbi səviyyəsinə, vüsətinə görə Heydər Əliyev dühasının və Azərbaycanın müstəqillik dövrünün epopeyasıdır. Üç kitabdan ibarət olan yekun cildlərdə ölkəmizdə müstəqilliyin elan olunmasından sonrakı hakimiyyət böhranı və Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə Qayıdışı ilə respublikada onun həyata keçirdiyi xilaskarlıq missiyası əsasında baş verən böyük dəyişikliklər öz əksini tapmışdır. Bu cildləri həm də Azərbaycanın müstəqillik dövrünün salnaməsi də adlandırmaq olar. 2008-ci ildə nəşr olunmuş dördüncü clddən təxminən beş il sonra, 2013-cü ildə çap edilmiş beşinci və altıncı cildlər nisbətən yaxın tarixi əhatə etsə də, tamamilə yeni epoxanı və fərqli münasibətləri əks etdirdiyi üçün dərin və əhatəli, əsaslandırılmış axtarışlar tələb etmişdir. Müəllif bu mərhələnin hərtərəfli inkişafı naminə bir-birinə əks mövqedə dayanan, müxtəlif qütbləri təmsil edən şəxslərin fikir və mülahizələrini də öyrənməli, təhlil süzgəcindən keçirməli olmuşdur. Obyektivlik həm görkəmli siyasi şəxsiyyətin, həm də epoxanın "bioqrafiyasının" yazılmasının əsas meyarına çevrilmişdir. Professionallıq isə Heydər Əliyevin ölkəyə rəhbərliyinə qayıdışı zərurətinin siyasi və tarixi səbəblərini və əhəmiyyətini bütün mahiyyəti ilə açmağa və aydınlaşdırmağa imkan yaratmışdır. Elmira Axundovanın Böyük Qayıdışın Naxçıvan mərhələsini 756 səhifəlik sanballı bir kitabda əks etdirməsi yeni dövrün reallıqlarının bütöv mənzərəsini canlandırmaq baxımından mühüm əhəmiyyətə malikdir. Çünki müəllifin özünün də etiraf etdiyi kimi "Heydər Əliyevin bioqrafiyasının Naxçıvan dövrü təkcə Naxçıvan Muxtar Respublikasının deyil, bütövlükdə Azərbaycanın tarixində ən çətin, həm də eyni zamanda, ən əhəmiyyətli mərhələdir. Həmin dövrdə Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Parlamenti Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizəsinin əsl qərargahına çevrilmişdir. Burada, Naxçıvanda qəbul olunan real inqilabi qərarlar dərhal bütün respublikada geniş yayılır, yeni dövlətin siyasi və iqtisadi mənzərəsində ciddi dəyişikliklər yaradırdı. Məhz buradan, Heydər Əliyev üçün müqəddəs olan torpaqdan hakimiyyətin zirvəsinə doğru onun əzəmətli yürüşü başlanmışdır". Fikrimizcə, bu obyektiv mülahizələrə onu da əlavə etmək lazımdır ki, o zamankı çox mürəkkəb ictimai-siyasi şəraitdə Naxçıvan Muxtar Respublikasının Ermənistanın işğalından xilas edilməsi, ölkənin ərazi bütövlüyünün qorunub saxlanılması Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı mühüm tarixi xidmətlərindən biridir. "Heydər Əliyev. Şəxsiyyət və zaman" çoxcildliyinin "Naxçıvan cığırları ilə" kitabı Heydər Əliyev məktəbinin dövlətçilik təliminin Naxçıvan dərslərinin Azərbaycanın müstəqillik tarixində mühüm əhəmiyyətə malik olduğuna şahidlik edir. Elmira Axundovanın Heydər Əliyevin bioqrafiyasının Naxçıvan dövrünü bütövlükdə Azərbaycan miqyasında ölkədə gedən ictimai-siyasi proseslərlə əlaqəli şəkildə, üzvi vəhdətdə qələmə alması bu mərhələnin, ümumiyyətlə, müstəqillik hərakatındakı rolunu daha əyani, canlı, real şəkildə əks etdirməyə imkan yaratmışdır. Azərbaycanın üçrəngli dövlət bayrağının ilk

dəfə Naxçıvanda ucaldılması, ölkənin müqəddəratında mühüm rola malik olan Yeni Azərbaycan Partiyasının muxtar respublikada yaradılması, Türkiyə ilə Azərbaycanın Naxçıvan regionunu əlaqələndirən Sədərək-Dilucu-Ümid körpüsünün salınması, Dünya Azərbaycanlılarının Həmrəylik Günü haqqında qərarın Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev tərəfindən imzalanması... Böyük Qayıdışdan Milli Qurtuluşa qədərki məsuliyyətli yolun müstəqillik dövrü Azərbaycan tarixinin şərəfli səhifələrini təşkil etdiyini mənalandırır. "Heydər Əliyev. Şəxsiyyət və zaman" çoxcildliyinin "Naxçıvan cığırları ilə" kitabındakı 65 nadir fotoşəkil böyük ömrün bioqrafiyasının əbədiləşmiş anlarını əks etdirən tarixi sənədlərdir. "Heydər Əliyev. Şəxsiyyət və zaman" çoxcildliyinin iki kitabdan ibarət olan altıncı cildi müstəqil Azərbaycanın romanıdır. Bu cildlərdə ölkəmizin və xalqımızın xilası yollarında görkəmli dövlət xadimi Heydər Əliyevin apardığı böyük mübarizənin möhtəşəm mənzərəsi həmin proseslərin iştirakçılarının hekayətləri və sənədlərin dili ilə canlandırılmışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ölkədə cəmiyyət həyatının bütün istiqamətlərini əhatə edən genişmiqyaslı islahatların qətiyyətlə həyata keçirilməsi, azərbaycançılıq ideologiyasının formalaşdırılması, hərbi quruculuq, yeni neft strategiyası, xarici siyasət, Qarabağ probleminin həlli, iqtisadi inkişafın təmin olunması yeni epoxanın elm, təhsil və mədəniyyət siyasətinin müəyyən edilməsi istiqamətlərindəki çoxcəhətli və yorulmaz fəaliyyəti həm tarixin ibrətamiz dərsləri, həm də nəsillərə nümunə mənasında qabarıq şəkildə ifadə olunmuşdur. Canlı həyat hadisələri və bədii obraz səviyyəsinə qaldırılmış yeni dövrün qəhrəmanlarının əhatəli təsviri əsasında yazılmış iki kitabdan ibarət olan "Qayıdış" cildini heç tərəddüd etmədən Heydər Əliyevin müstəqillik dövrü həyatı və mübarizəsinin iki seriyalı filmi adlandırmaq olar. Bəlli olduğu kimi bu yeni epoxanın zirvəsində Heydər Əliyevin parlaq obrazı dayanır. Bütövlükdə "Heydər Əliyev. Şəxsiyyət və zaman" çoxcildliyi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Zamanın fövqünə yüksəlmiş uca və möhtəşəm obrazının bədii-sənədli abidəsidir. Təqdim olunan çoxcildlik, eyni zamanda, Heydər Əliyevin möhtəşəm şəxsiyyətinin fonunda dəyişən və inkişaf edən Zamanında mahiyyətinə də geniş işıq salır.

Elmira Axundovanın "Heydər Əliyev. Şəxsiyyət və zaman" çoxcildliyi janr etibarilə artıq əvvəlki üçcildlikdə müşahidə olunan roman-tədqiqatının hüdudlarını aşaraq mövzusu, süjeti və kompozisiyasına altı cild həcmindəki geniş əhatə dairəsinə, vüsətinə görə epopeyaya çevrilmişdir. Roman-tədqiqat əsərin janrını yox, yanaşma üsulunu müəyyən edir. Bu çoxcildlik görkəmli dövlət xadimi Heydər Əliyev və onun epoxası haqqında, nəsil şəcərəsi, ailə və təhsil mühitinin, Azərbaycana birinci və ikinci rəhbərlik dövrlərinin, Moskva-Kreml mərhələsinin romanları əsasında formalaşmış mükəmməl bir epopeyadır. İlk bioqrafik roman-epopeya kimi də əsər xüsusi orijinallığa malikdir. Çoxcildlikdə çoxplanlı şəkildə təqdim olunan, romanlar silsiləsi ilə əks etdirilən Heydər Əliyevin bioqrafiyası Azərbaycan xalqının çətin və şərəfli mübarizə yollarının böyük dastanı epopeyasıdır. Elmira Axundovanın "Heydər Əliyev. Şəxsiyyət və zaman" çoxcildliyi ictimai dəyərinə və sanbalına görə Azərbaycan ədəbiyyatının "Əzablı yollarla" səviyyəsində əhəmiyyətli əsəridir. Çoxcildlikdən keşməkeşli əzablı yollardan keçərək polad kimi bərkiyib möhkəmlənmiş, geniş üfüqlərə çıxmış Azərbaycanın sabahkı aydın yollarına da işıq düşür.

**“Azərbaycan”.-**2013.-16 aprel.-N 79.-S.9.

# BÖYÜK SƏNƏTİN BÖYÜK HAMİSİ

**Timuçin Əfəndiyev,**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru,
professor.

**“Çox sevindirici haldır ki, Azərbaycanın böyük tarixə malik olan incəsənəti hər il yeni istedadlar yetişdirir. Bu, xalqımızın mədəniyyətinin, incəsənətinin zənginliyini nümayiş etdirir”.**
***Heydər Əliyev***

**Müasir Azərbaycan dövlətinin qurucusu, müstəqilliyimizin, bütövlüyümüzün əbədi təminatçısı, xalqımızın ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi yaxınlaşır. Bu fenomenal şəxsiyyətin, zəmanəmizin ən böyük azərbaycanlısının doğum gününə xalqımız böyük ruh yüksəkliyi ilə hazırlaşır. Ölkə başçısı cənab İlham Əliyevin ulu öndərin 90 illiyinin keçirilməsi barədə verdiyi sərəncam insanlarımız tərəfindən böyük razılıq hissi ilə qarşılanmışdır. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kollektivi də bu möhtəşəm yubileyə səylə hazırlaşır.**

Maraqlı faktdır ki, ulu öndərimizin 90 illik yubileyi həm də müsəlman Şərqində ilk professional teatrın 140 illiyi və professional teatr təhsilimizin 90 illiyi yubileylərinə təsadüf edir. Ulu öndərimizin layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyev hər iki yubileyin dövlət səviyyəsində keçirilməsi barədə fərman imzalamışdır.

Bu yubileylərin yüksək səviyyədə keçirilməsi dövlətimizin milli mədəniyyətin inkişafına göstərdiyi böyük qayğıdan, diqqətdən xəbər verir. Bu dəst–xətt müdrik Heydər Əliyev siyasətinin müasir dövrdəki davamıdır. Mədəniyyət müəssisələrinin, teatrların yenidən qurulması, müasir avadanlıqlarla təmin olunması, respublikada davamlı olaraq beynəlxalq teatr festivallarının, konfranslarının keçirilməsi, vaxtilə ölkəmizdə peşəkar teatr təhsilinin əsasını qoyan, bu gün isə teatr təhsili ilə yanaşı, həm də müxtəlif sahələrə aid 30–dan artıq ixtisas üzrə mütəxəssis yetişdirən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin yubileyinə hazırlıq bunun bariz nişanəsidir. Bütün bunların təməlində isə ulu öndər Heydər Əliyevin formalaşdırdığı böyük dövlətçilik məktəbi, müdrik siyasət dayanır.

Heydər Əliyev mədəniyyətimizin, incəsənətimizin böyük hamisi idi. 1969–cu ildə respublikaya rəhbərlik etməyə başladığı ilk günlərdən Heydər Əliyev başqa sahələrlə yanaşı, mədəniyyət və incəsənətə də xüsusi diqqət yetirirdi. Onu tez–tez teatrlarda, konsert salonlarında, müxtəlif sərgilərin açılışında və başqa tədbirlərdə görmək olardı. Teatr sənətinə isə xüsusi önəm verərdi. Tamaşaların premyeralarına gələr, tamaşa bitdikdən sonra səhnə arxasına keçər, dramaturqla, rejissorla, ayrı–ayrı aktyorlarla bu sahənin bilicisi kimi söhbət edər, fikirlərini bildirərdi. Ulu öndərimiz ömrünün son günlərinə qədər bu ənənəni davam etdirdi.

Heydər Əliyevin teatra bağlılığı təsadüfi deyildi. Bu barədə söz düşərkən o, xatırlayırdı: “13–14 yaşlarında Naxçıvan Dövlət Teatrının tamaşalarına çox böyük həvəs və maraqla baxırdım. İbrahim Həmzəyevin ifa etdiyi rolların vurğunu idim. Sonralar eşitdim ki, İbrahim Həmzəyev dram dərnəyi təşkil edib. Mən o dərnəyə yazıldım və həvəslə iştirak etdim”. Uşaqlıq və erkən gənclik illərini xatırlayan ulu öndər həm də deyirdi: “Mən teatrla gənc yaşlarımdan məşğul olmuşam. Baş rollarda oynamışam”.

Bu böyük şəxsiyyətin Naxçıvanda keçən uşaqlıq və gənclik illərini yaxşı xatırlayan xalq artisti Zəroş xanım Həmzəyeva öz xatirələrində yazırdı: “Mənim bu dahi insanla təmiz və səmimi münasibətlərim var idi. 2001–ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə “Şöhrət” ordeni ilə təltif olundum. Heydər Əliyev bu ali mükafatı mənə təqdim edən zaman çox həyəcanlandım. Adım çəkiləndə cənab Prezidentə yaxınlaşıb dedim: “Mən təkcə ordeni aldığım üçün həyəcanlanmıram. Sovet dövründə Lenin ordenindən başqa, bütün ordenləri almışam. Ona görə həyəcanlanıram ki, həmin fərmanlarda böyük Heydər Əliyevin imzası olmayıb. İndi isə müstəqil dövlətimizin “Şöhrət” ordenini alıram. Bu ordeni mənə 63 il bundan əvvəl mənimlə bir parta arxasında oturan Heydər, bu gün isə dünya şöhrətli prezident Heydər Əliyev təqdim edir”.

Heydər Əliyevin səhnə arxasında yaradıcı heyətlə görüşü, söhbətləri bir qayda olaraq televiziya vasitəsilə xalqa çatdırılırdı. İnsanlar böyük həvəs, maraq və heyrətlə bu görüşləri izləyirdilər. Heydər Əliyevi haqlı olaraq Mustafa Kamal Atatürklə müqayisə edir, onların ruhən bir–birinə yaxın olduqlarını deyirlər. Bu yaxınlıq mədəniyyət, mənəviyyat sahəsində də özünü büruzə verir. Mustafa Kamal Paşa həm də mədəniyyətin, xüsusən teatr sənətinin vurğunu idi. Onun bir tamaşadan sonra səhnə arxasına keçib aktyorlarla görüşünü və yanındakı məmurlara dediyi sözləri xatırlamaq yerinə düşər. Atatürk məmurlara belə demişdi: “Əfəndilər, onu bilin ki, hər

biriniz nazir ola bilərsiniz, millət vəkili ola bilərsiniz, hətta cümhurbaşqanı da ola bilərsiniz. Amma sənətçi ola bilməzsiniz. Gəlin həyatını bu müqəddəs işə qurban vermiş cocuqları sevək!"

Heydər Əliyev nəinki tamaşalara gedir, yaradıcı heyətlə görüşür, sənət haqqında mülahizələrini bildirirdi, o, eyni zamanda Azərbaycanda teatr sənətinin inkişafı üçün mühüm qərarlar qəbul edir, rejissor və aktyorların həyat şəraitini yaxşılaşdırmaq üçün əlindən gələni əsirgəmirdi. Teatr xadimlərinə münasibətdə Heydər Əliyevin çox xarakterik, ancaq onun özünə məxsus olan bir xüsusiyyəti də var idi. Rejissorların, aktyorların yubileylərində onların evlərinə telefon açar, sənətkarları şəxsən özü təbrik edər, hal–əhval tutar və nəyə ehtiyacları olduğunu öyrənərdi. Tanınmış sənət adamı xəstələnəndə və yaxud xəstəxanaya düşəndə ona baş çəkər, bununla əlaqədar lazımi köməklik göstərirdi. Mən onun atam İlyas Əfəndiyevə göstərdiyi böyük diqqətin şahidi kimi deyə bilərəm ki, 1979–cu ildə atam ağır xəstə olarkən Heydər Əliyev onun Kommunist Partiyasının üzvü olmaya–olmaya Moskvanın Kreml xəstəxanasında müalicə almasına şərait yaratdı (orada ancaq KP–nin rəhbər işçiləri müalicə olunurdular—T.Ə.). Atam orada düzgün müalicə olunaraq sonradan 19 il də yaşadı və bir çox roman, pyes yazmış oldu. Əlbəttə, bu, həm də ulu öndərimizin o vaxt Moskvada böyük nüfuz sahibi olması faktının göstəricisidir. Atam Moskvada xəstəxanada yatarkən Heydər Əliyevin onunla dəfələrlə maraqlanması, qayğı göstərməsi bu günə qədər ailəmizin xatirindədir və biz həmişə ulu öndəri minnətdarlıqla xatırlayırıq. Bu qayğı təkcə İlyas Əfəndiyevlə bağlı deyildi. Onun Süleyman Rüstəmə, Mirzə İbrahimova, Rəşid Behbudova, Qara Qarayevə, Fikrət Əmirova, Hökümə Bülluriyə, Bəxtiyar Vahabzadəyə, Xəlil Rzaya, Yusif Səmədoğluna və başqalarına göstərdiyi qayğı xalqımızın yaddaşındadır. İlyas Əfəndiyevdən söz düşmüşkən bir faktı da xatırlatmaq istərdim. Onun "Mahnı dağlarda qaldı" tamaşasının Dövlət Mükafatı alması şəxsən Heydər Əliyevin təşəbbüsü ilə baş tutmuşdu. Dövlət Mükafatı üzrə komissiya üzvləri arasında İlyas Əfəndiyevin yaradıcılığına qısqanclıqla yanaşan bəzi şəxslər də vardı. Onların "fəaliyyəti" nəticəsində komissiyanın yekun iclasında təqdim olunan siyahıya "Mahnı dağlarda qaldı" tamaşasının adı düşməmişdi. Bu vaxt ulu öndərimiz soruşur: "Niyə həmin əsərin adı siyahıda yoxdur? Mən bu əsərə baxmışam və bəyənmişəm, o vaxt komissiya üzvlərinin bir çoxu da teatrda idi".

Bu hadisədən sonra "Mahnı dağlarda qaldı" tamaşası Dövlət Mükafatına layiq görüldü.

Heydər Əliyev bəzən heç kəsin gözləmədiyi halda həftə ərzində iki dəfə teatra gedirdi. 1972–ci il mart ayının 25–də ümummilli liderimiz Nəbi Xəzrinin "Sən yanmasan" tamaşasına baxdıqdan sonra Nodar Dumbadzenin "Darıxma ana" pyesinin premyerasına hazırlaşan rejissor və aktyorlar fikirləşdilər ki, iki gün sonra Heydər Əliyev onların tamaşasına baxmayacaq. Aktyorlar elə güman edirdilər ki, bu gün, yəni martın 25–də teatra gələn Heydər Əliyev iki gün sonra, yəni martın 27–də tamaşaya, təbii ki, gələ bilməyəcək. Amma martın 27–si səhər teatr kollektivinə xəbər çatdı ki, Heydər Əliyev Nodar Dumbadzenin o vaxt çox məşhur olan, müəyyən dairələrdə mübahisə doğuran "Darıxma ana" pyesinin tamaşasına gələcəkdir. Heydər Əliyev, həqiqətən də, o tamaşaya gəldi.

Heydər Əliyevin Azərbaycan teatrına, rejissor və aktyorlara çox böyük rəğbəti və məhəbbəti var idi. Xalq artisti Məlik Dadaşov Nəriman Həsənzadənin "Bütün Şərq bilsin" tamaşası ilə əlaqədar bunları demişdir: "Sumqayıt teatrının "Bütün Şərq bilsin" tamaşasına Heydər Əliyev Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində baxdı. Mən orada Nərimanov rolunu ifa edirdim. Rəhbər tamaşa haqqında öz fikirlərini söylədi və axırda dedi: "Əgər bu gün siz Məlik Dadaşov kimi bir sənətkarla belə bir tamaşa yaratmışsınızsa, bu yaxşı haldır. Bu işi davam etdirin. Sonra kollektivə müraciətlə: "Nə arzunuz var deyin. Allah bilir belə bir fürsət bir də nə vaxt ələ düşəcəkdir"— dedi. Heç kim dinmədi. Çünki tapşırmışdılar ki, sual verməyin, heç nə deməyin. O öz sualını bir də təkrar etdi. Yenə hamı susdu. Rəhbər dönüb onunla birlikdə gələn Mərkəzi Komitə işçilərinə baxdı, sonra kollektivə: "Görünür sizə danışmamağı tapşırıblar, gözlərinizdən oxuyuram" —dedi. Yenə heç kim dinmədi. Lakin gülümsədilər. Heydər Əliyev onunla gələnlərə "nahaq belə etmisiniz" —deyə narazılığını bildirdi. İş bu yerə çatanda mən dedim:

–Xahiş edirəm bizimlə şəkil çəkdirəsiniz.

–Elə bu?

–Bəli, elə bu, ancaq, bir şərtlə. O şəkildən bizə də versinlər.

Görkəmli satira ustası, respublikanın xalq artisti Nəsibə Zeynalova Heydər Əliyev haqqında belə deyirdi: "Heydər Əliyevin həyat yoldaşı Zərifə xanım oğlu və qızı ilə Musiqili Komediya Teatrına tez–tez gəlirdilər. Onlar mənim iştirakımla göstərilən "Qaynana" tamaşasına da baxdılar. Tamaşa çox xoşlarına gəlmişdi. Az sonra Heydər Əliyev də "Qaynana"ya baxdı. Razı qaldı və göstəriş verdi ki, tamaşa lentə alınıb qızıl fondda saxlanılsın. Tamaşanın üçüncü pərdəsindən sonra o, teatrın müdiri Şəmsi Bədəlbəyli ilə qrim otağına gəlib məni təbrik etdi. Sonra "Qaynana" əsəri əsasında film çəkildi. Mən Dövlət Mükafatına təqdim olundum.

Belə misalların sayını artırmaq olar. Məsələn, 1981–ci ildə Heydər Əliyev Azərbaycan KP MK–nın büro üzvləri ilə birlikdə İlyas Əfəndiyevin "Xurşudbanu Natəvan" pyesinə maraqla tamaşa etmiş, sonra əsərin

müəllifinə belə demişdi: "Siz ilk növbədə Natəvan— bu şairə haqqındakı şayiələrə son qoydunuz. Natəvanı təmkinli, ziyalı Azərbaycan qadını kimi bizə təqdim elədiniz, bununla yanaşı, gözəl xan qızının timsalında siyasi baxımdan onun xan qızına layiq hərəkətləri ilə bizim Şərq qadınlarının obrazını yarada bildiniz. Mən buna görə sizə sağ ol deyirəm".

Teatra qəlbən bağlı olan Heydər Əliyev digər yazıçılarımızla yanaşı, atam İlyas Əfəndiyevin dramaturgiyasına da həssaslıqla yanaşır, onun yaradıcılığını izləyirdi. Ulu öndər İlyas Əfəndiyevin "Hökmdar və qızı" tamaşasına o vaxt respublikamızda qonaq olan görkəmli alim və ictimai xadim İhsan Doğramacı ilə birlikdə gəlmişdi. Tamaşadan sonra Heydər Əliyev qonaqla birgə səhnə arxasına gəlib yaradıcı heyəti təbrik etdi. Elə həmin görüşdə Heydər Əliyev atam İlyas Əfəndiyev haqqında bunları söylədi: "İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr veribdir, böyük xidmətlər göstəribdir. Çox dəyərli əsərlər yaradıbdır. İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı, bir də ona görə əhəmiyyətlidir ki, o öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünkü nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir".

Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi 1969–1982–ci illərdə keçmiş SSRİ–nin müxtəlif yerlərindən Bakıya teatr kollektivləri çox böyük həvəslə qastrol səfərlərinə gəlirdilər. Belə ki, 1969–cu ildə Sevastopol Dövlət Rus Dram teatrı, 1970–ci ildə Leninqrad Dövlət Akademik Dram teatrı, Moskva Bədaye Akademik Teatrının kollektivləri, habelə Xarkov, Donetsk və başqa şəhərlərin rejissorları, aktyorları şəhərimizə gələrək maraqlı tamaşalarla seyrçilərin hüsn–rəğbətini qazanmışdılar. Bu tədbirlərin çoxunda Heydər Əliyev şəxsən iştirak və çıxış edir, müxtəlif xalqların ədəbiyyat və incəsənətinin qarşılıqlı zənginləşməsində müstəsna rol oynayırdı.

1974–cü ildə Azərbaycan teatrının 100 illiyinə həsr olunmuş yubileydə Heydər Əliyev görülən işlərə yekun vuran və teatr sənətimizin gələcəyini müəyyənləşdirən dərin məzmunlu, proqram xarakterli məruzə ilə çıxış etdi. Bu məruzədə Azərbaycan teatr xadimləri qarşısında çox ciddi vəzifələr qoyuldu, gənc kadrların hazırlanması işinə xüsusi diqqət yetirməyin əhəmiyyətindən danışıldı.

Heydər Əliyev görkəmli ictimai xadim, böyük siyasətçi olmaqla yanaşı, həm də incəsənəti, o cümlədən incəsənətin ən mürəkkəb növlərindən olan teatr sənətini sevən, dərindən anlayan bir insan olmuşdur. Ulu öndərin çıxışlarından, müxtəlif sənət hadisələri və sənətkarlar haqqında mülahizələrindən bəlli olur ki, o, teatr sənətini ən dərin qatlarına qədər bilir, teatr tamaşalarını peşəkar teatrşünas səviyyəsində qəbul edirdi. Heydər Əliyevin peşəkar milli teatr sənətimizin 100 illik yubileyinə həsr olunmuş geniş və əhatəli çıxışına nəzər salarkən bir daha buna əmin oluruq. Sözügedən çıxışında ulu öndər Azərbaycan teatr sənətinin yaranma və inkişaf tarixini işıqlandırmış, o zamankı 100 yaşlı milli teatr sənətinə dəqiq və dürüst qiymət vermişdi. Bu gün həmin tarixi nitqdən 40 ilə yaxın vaxt keçir. Lakin o nitq sanki dünən edilibmiş kimi, aktuallığını itirməmiş, əhəmiyyətini, məna yükünü qoruyub saxlamışdır. Həmin nitqdən bəzi məqamlara diqqət yetirək:

"Yüz il bundan əvvəl ictimai və dini köləliyin zülmət səltənətində Azərbaycan dram sənətinin ilk qığılcımı parladı. Mirzə Fətəli Axundovun "Lənkəran xanının vəziri" pyesinin tamaşası ilə Azərbaycan teatrının təməli qoyuldu.

Şərqdə ilk teatr olan Azərbaycan teatrı maarifçilik və azadlıq ideyalarının carçısına çevrildi, köhnə dünyanı dağıdıb alt–üst etməkdə mühüm rol oynadı. O, zamanın qatı qaranlığını yararaq parlaq gələcəyə yol açan, insanların şüurunu, qəlbini oyadan, onları azadlıq, səadət naminə hünərlər göstərməyə ruhlandıran bir məşəl idi.

Azərbaycan Dram Teatrı böyük və şanlı yol keçmişdir. O, Azərbaycanda mütərəqqi ictimai fikrin təşəkkül və inkişafında fəal iştirak etmiş, öz xalqının mənəvi xəzinəsini zənginləşdirmiş… həmişə qabaqcıl ideya mövqeyində durmuş və indi də qabaqcıl ideya mövqeyində durmaqdadır. Azərbaycan Dram teatrının yaradıcılıq axtarışları və nailiyyətləri ölkənin bütün teatr ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanıb bəyənilmiş, Sovet İttifaqının bir çox şəhərlərində tamaşaçılar tərəfindən yüksək qiymətləndirilmişdir.

Məhz buna görə Azərbaycan Dram Teatrının yüz illik yubileyi respublikamızın həyatında böyük mədəni və siyasi əhəmiyyətli hadisəyə, bütün çoxmillətli sovet teatrının bayramına çevrilmişdir…

İcazə verin, bu təntənəli və fərəhli gündə… respublikanın zəhmətkeşləri adından Azərbaycan teatrının bütün xadimlərini 100 illik yubiley münasibətilə səmimi qəlbdən, hərarətlə təbrik edim.

Teatrımız illər boyu enişli–yoxuşlu yollarla getmiş, ağır sınaqlara məruz qalmış, xalqa zidd mürtəce qüvvələrə qarşı şiddətli ideoloji mübarizə aparmalı olmuşdu. Görkəmli mədəniyyət xadimləri Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov ilk dərin şırım açaraq Azərbaycan teatr sənətinin toxumunu səpmiş, onun cücərtilərini hifz edib qorumuşdular.

Azərbaycan teatrının 100 illiyi münasibətilə söylədiyi tarixi məruzəsində Heydər Əliyev peşəkar milli teatr sənətimizin yarandığı dövrə tarixi ekskurs edir, "ilk dərin şırım açaraq Azərbaycan teatr sənətinin toxumunu

səpmiş, onun cücərtilərini hifz edib qorumuş" Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli kimi ziyalıların zülmət içində olan səltənətin tərəqqisi, xalqın maariflənməsi, milli mədəniyyətin və mənəviyyatın qorunmasındakı xidmətlərini yüksək qiymətləndirir. O, teatr sənətimizin ilk addımlarında onun inkişafı üçün əllərindən gələni əsirgəməyən mədəniyyət xadimlərinin hər birinin yaradıcılığını, milli teatr sənətinə töhfələrini dərin təhlilə cəlb edir, konkret tarixi faktlara söykənən dürüst qənaətlərə gəlir: "İncəsənət xadimlərinə divan tutulması bütün tərəqqipərvər ictimaiyyəti, teatrın bütün dostlarını hiddətləndirirdi. Hüseyn Ərəblinskinin öldürülməsi onları xüsusilə bərk sarsıtmışdı.

Hüseyn Ərəblinski, onun həmkarları və məsləkdaşları olan Sidqi Ruhulla, Cahangir Zeynalov, Abbas Mirzə Şərifzadə, Mahmud Kazımovski, Mirzağa Əliyev, Hüseynqulu Sarabski, Əbülfət Vəli və başqaları teatrın özünü qoruyub saxlamaq uğrunda daimi, hətta fədakarcasına mübarizə şəraitində xalqı Azərbaycan və rus dramaturqlarının, dünya dramaturgiyası klassiklərinin ən yaxşı əsərləri ilə tanış edirdilər".

Mədəniyyət və incəsənətimizin böyük təəssübkeşi olan Heydər Əliyev öz çıxışında teatr sənətinin mayasını təşkil edən aktyor sənətinə də toxunur, realist ənənəyə söykənən milli aktyor məktəbinin görkəmli nümayəndələrinin yaradıcılığını təhlilə çəkirdi. Heydər Əliyevin milli aktyor məktəbinin ən parlaq nümayəndələrindən biri —Hüseyn Ərəblinskinin yaradıcılığı ilə bağlı söylədiyi fikirlər, irəli sürdüyü mülahizələr xüsusi maraq doğurur. O, haqlı olaraq, Hüseyn Ərəblinskini "böyük faciə ustası, professional rejissor, Azərbaycan aktyorlarının bütöv bir nəslinin tərbiyəçisi" adlandırırdı. Ulu öndər ötən əsrin əvvəllərində aktyorların milli teatr sənətini qoruyub saxlamaq uğrunda fədakarcasına mübarizəsini yüksək qiymətləndirirdi: "Dram teatrının nəcib təsiri altında Azərbaycanda səhnə sənətinin yeni növləri yaranıb inkişaf etməyə başladı. 1908–ci ildə Bakıda ilk milli operanın, Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasının tamaşası ilə musiqili teatr, indi məşhur olan M.F.Axundov adına Opera və Balet Teatrı meydana gəldi. Çox keçmədən musiqili komediyalar, vodevillər yaradılmağa başladı".

Heydər Əliyev dramatik teatrın inkişaf tendensiyalarına toxunmaqla yanaşı, milli opera sənətimizin də yaranma və inkişaf tarixini işıqlandırmağı unutmur. 1908–ci ildə Bakıda ilk milli operanın — Şərqdə birinci opera olan Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının tamaşası ilə əsası qoyulan musiqili teatrın, M.F.Axundov adına Opera və Balet Teatrının inkişaf tarixinə nəzər salır, milli opera və operettaların özəl səciyyələrini araşdırır: "Milli teatr sənətinin inkişafında müasir dramaturgiyanın rolu və əhəmiyyətini qeyd etmək lazımdır. Müasir dramaturgiyanın inkişafı, şübhəsiz, bilavasitə teatrın özündən, onun bədii və estetik səviyyəsindən asılıdır. Bununla birlikdə, qeyd etməmək olmaz ki, özünün bütün müvəffəqiyyətlərinə baxmayaraq, dramaturgiyamız zəhmətkeşlərin artan tələbatından geri qalır. Dramaturqlar qabaqcıl rus dramaturgiyasının, mütərəqqi dünya dramaturgiyasının təcrübəsini diqqətlə öyrənib yaradıcılıqda tətbiq etməli, müasir həyat şəraitini və ideya–estetik tələbləri nəzərə almaqla öz bədii vasitələr xəzinəsini yorulmadan zənginləşdirməlidirlər. Ən başlıcası isə budur ki, dramaturqlar həmişə xalq həyatının içərisində, nəhəng quruculuq işlərinin qaynağında olmalı, insanların daxili aləmini, psixologiyasını dərindən və hərtərəfli öyrənməli, tədqiq etməlidirlər. Səthi müşahidələr əsasında tərtib edilmiş sxemlər üzrə soyuq ürəklə dərin məzmunlu səhnə əsərləri, müasirlərimizin şüuruna və qəlbinə təsir edə bilən əsərlər yaratmaq mümkün deyildir".

Teatr sənətinin dərin bilicisi olan Heydər Əliyev teatr sənətinin inkişafında müasir dramaturgiyanın rolunu və əhəmiyyətini xüsusi vurğulayaraq dramaturgiyanın inkişafını teatrın bədii–estetik səviyyəsinin əsas şərtlərindən hesab edirdi: "Fərəhli haldır ki, respublika teatrlarındakı tamaşaların əksəriyyəti müasirlərimizə, həyatımızın ciddi, aktual ictimai və etik problemlərinə həsr olunmuşdur. Müasirlərimizin qaynar həyatını əks etdirən tamaşaların xüsusi cazibə qüvvəsi vardır. Bunlar qoyulmuş problemlərin müasirliyi, aktuallığı ilə tamaşaçı kütləsini həyəcanlandırır".

Bizim üçün olduqca fərəhlidir ki, ulu öndər teatr təhsilini də yüksək qiymətləndirmiş, öz çıxışlarında universitetimizin keçdiyi tarixi yoldan bəhs etmişdir. O, qeyd etmişdir ki, Azərbaycan teatrlarının yüksək ixtisaslı aktyor və rejissor kadrları ilə təmin olunmasında bizim ali məktəbimizin müstəsna rolu var. Təkcə teatr sənətini deyil, həm də respublikamızda teatr təhsili tarixini yaxşı bilən ulu öndər bu barədə maraq doğuran fikirlər söyləmiş, həm də konkret tarixi faktlara istinad etmişdir: "1923–cü ildə Şərqdə ilk dəfə yaradılmış Teatr məktəbinə o zaman Şövkət Məmmədova başçılıq edirdi. Sonralar o, SSRİ xalq artisti adına layiq görüldü. M.Əzizbəyov adına teatrın və digər Azərbaycan teatrlarının səhnə ustalarının əksəriyyəti bu məktəbin ilk məzunlarıdır. İndi SSRİ xalq artistləri olan Həlimə Nəsirova, Sara İşanturayeva, Altı Karlıyev, Özbəkistan SSR xalq artisti Nəzirə Əliyeva və bir çox başqaları da həmin məktəbi bitirmişlər. Teatra istedadlı aktyorlar və rejissorlar dəstəsi vermiş bu sənət ocağı sonradan ali məktəbin —Azərbaycan Dövlət İncəsənət İnstitutunun yaradılması üçün bir əsas oldu".

Bu gün də mədəniyyət, teatr təhsili və ümumiyyətlə, bədii təhsil işçiləri ulu öndərimizin qayğısını hiss etməkdədir. Çünki onun bizə göstərdiyi qayğı və diqqəti bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev layiqincə davam etdirir.

**"Respublika".-**2013.-16 aprel.-N.-78.-S.5.

# MÜASİR AZƏRBAYCANIN QURUCUSU

**Musa QASIMLI,**
Milli Məclisin deputatı, professor

HEYDƏR ƏLİYEV-90

**Anadan olmasının 90 illiyi zirvəsindən xalqımızın ümummilli lideri, görkəmli siyasətçi və dövlət xadimi Heydər Əliyevin müasir Azərbaycan dövlətinin qurucusu kimi roluna nəzər yetirmək, fəaliyyətini araşdırmaq həm praktik siyasət, həm də tarixi-elmi-nəzəri baxımdan aktuallıq kəsb edir. Yaşadığı dövrdən uzaqlaşdırqca böyüklüyü daha aydın görünən ulu öndər Heydər Əliyevin müstəqil dövlətçilik fəaliyyətinin bütün tərəflərini, heç şübhəsiz, bir məqalədə işıqlandırmaq mümkün deyil. Bunun üçün dərin elmi-tədqiqat işlərinin aparılmasına və sanballı əsərlərin yazılmasına ehtiyac vardır. Bu məqalədə başlıca olaraq Azərbaycanın dövlət müstəqilliyinin əsaslarının yaradılması, qorunub saxlanılması və dövlətçiliyin möhkəmləndirilməsi sahəsində Heydər Əliyevin fəaliyyətinə nəzər yetirməyə çalışacağıq.**

Tarixi tədqiqatların dünyada qəbul olunmuş metodoloji prinsiplərinə görə, dövlət xadiminə bir sıra meyarlar əsasında qiymət verilir. Tarixi şəxsiyyət konkret məkan və zaman daxilində fəaliyyət göstərdiyindən onun fəaliyyətinə də məhz həmin baxımdan yanaşmaq tarixi tədqiqatların metodoloji tələblərindən biridir. Dövlət rəhbərinə özündən sonra gələnlərlə deyil, özündən əvvəlkilərlə müqayisədə qiymət verilir. Lakin zamanı qabaqlayan, xalqının inkişaf yolunu əvvəlcədən bir neçə on illər və bəzən də yüz illər sonra üçün müəyyənləşdirən, xalqın tərəqqisi üçün başlıca şərt olan dövlətinin qüdrətlənməsi işinə ömrünü həsr edənlər dahilər olurlar. Sonrakı tarixi dövrlərdə hakimiyyətə gələnlər öz xalqını və dövlətini daha da güclü etmək üçün məhz onların dövlətçilik irsinə və təcrübəsinə müraciət edirlər. Məhz həmin meyarlar baxımından Heydər Əliyevin dövlətçilik irsinə diqqət yetirmək, bəlağətə yol vermədən bəzi suallara elmi cəhətdən əsaslandırılmış və məntiqi cavab vermək yaxın tariximizi doğru bilmək, qiymətləndirmək və düzgün nəticələr çıxarmaq baxımından əhəmiyyətlidir. Doxsan ilin ucalığından Heydər Əliyev bir siyasətçi və dövlət xadimi kimi necə görünür? Regionun və dünyanın geosiyasətinin dəyişməsinə təsir edən dövlət xadimi kimi xarici siyasət fəaliyyəti necə görünür? Qeyd etmək istəyirəm ki, bu məqalə qətiyyən təbliğat məqsədi daşımır, böyük tarixi şəxsiyyətin fəaliyyətinə tarixçi baxışıdır.

İstiqlalın təməli

Azərbaycan xalqı 1918-ci ilin may ayında müsəlman dünyasında bir "ilk"ə imza atdı. Müsəlman Şərqində ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətini, respublika idarə üsulunu yaratdı. Müsəlman xalqlarına müstəmləkəçilikdən xilas olmağın yolunu göstərdi. Lakin Azərbaycan Xalq Cümhuriyyəti bolşevik Rusiyasının istilasına məruz qaldıqdan sonra milli dövlət süquta uğradı. Azərbaycan SSR yaradıldı. Müstəqil dövlətçiliyin atributlarının məhv edilməsinə başlandı. XX əsrin 20, 30 və 40-cı illəri sovet dövlət quruculuğu adı altında müstəqil dövlətlçiliyin ləğv edilməsi, təbii sərvətlərinin amansızlıqla talan edilərək daşınıb aparılması, Azərbaycanın Mərkəzə daha çox bağlanması, milli ədəbiyyatın, milli ruhlu ziyalıların məhv edilməsi, təqiblər və repressiyalar ilə yadda qaldı. Azərbaycan rəhbərliyində təmsil olunan şəxslər arasında intriqalar, Moskvaya şikayət dolu məktubların göndərilməsi respublikaya olan mənfi münasibəti daha da artırırdı. Sovet lideri Stalinin ölümündən sonra ölkədə nisbi yumşalma baş verdi. Lakin həmin yumşalmadan milli məsələlərin həlli üçün bacarıqla istifadə olunmadı. Mərkəz Azərbaycanı cəzalandırmaq yolu tutdu. Yenidən milli ruhlu insanlar sıxışdırılmağa başlandı.

1969-cu ildə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra şərait tədricən dəyişməyə başladı. Fabrik və zavodların tikilməsi və işə salınması nəticəsində yerlərdən gənclərin paytaxta gəlməsi ilə çarizm və sovet dövrlərində əsl simasını itirimiş Bakı şəhərinə milli ruh qayıtdı.

Dövlət müstəqilliyinin maddi təməlləri olan ərazinin qorunmasına, əhalinin artımı və inkişafına, hakimiyyətin güclü olmasına xüsusi diqqət yetirildi. İstiqlalı üçün lazım olan maddi təməllər sovet sistemi daxilində formalaşmağa başladı. Azərbaycan ərazisindən qonşu respublikalara pay verilmədi.Əhalinin sosial-iqtisadi vəziyyəti yaxşılaşdırıldı. Bu, əhalinin demoqrafik inkişafına ciddi təsir etdi.

Heydər Əliyev sovet sistemi şəraitində Azərbaycanı daim didib-parçalayan, xalq haqqında mərkəzdə mənfi rəy yaradan intriqalara son qoydu. Hakimiyyətin qanadları arasında yekdillik yaradıldı. Xalq ilə hakimiyyət arasında birlik quruldu, milli kadrların yerləşdirilməsinə üstünlük verildi.Güclü hakimiyyət formalaşdırıldı. Bütün ölkədə slavyan xalqların nümayəndələri milli respublikalarda hakimiyyət kürsülərinə daha çox gətirildiyi

bir zamanda Heydər Əliyev yerli kadrları hazırlamağa və ətrafına toplamağa başladı. Xarici tədqiqatçılar Heydər Əliyevin uğurlarından biri kimi məhz bu amili görürdülər.

İstiqlal üçün tələb olunan mənəvi amillərin formalaşması üçün addımlar atıldı. Məlum olduğu kimi, Azərbaycanın istiqlal fikri azərbaycanlı maarifçilərin, şair, yazıçı və alimlərin əsərlərində intişar tapmışdı. İstiqlal məfkurəsini əsər və düşüncələrində gəzdirdikləri üçün əvvəlki illərdə daim təqib olunmuş alim, şair, yazıçı və jurnalistlər azad nəfəs aldılar. Belə şəxsləri Mərkəzin cănginə verməyən Heydər Əliyev bəzən yüngülcə tənqid etsə də, az sonra onlara yüksək fəxri adlar və vəzifələr verərək qoruyur və toxunulmaz edirdi. O, Azərbaycan dili üzrə tədqiqatların aparılmasını təşviq edir, həmin sahənin görkəmli alimlərinə dövlət mükafatları verirdi.Azərbaycan ədəbiyyatının görkəmli xadimlərinin xatirəsini əziz tutur və əbədiləşdirirdi. Sovet dövründə hamının ümimi vətəni hesab edilən SSRİ-nin uzaq bir guşəsindən — Sibirdən böyük mütəfəkkir Hüseyn Cavidin məzarının doğulduğu Naxçıvana köçürülməsinin dərin mənası var idi. Heydər Əliyev Azərbaycanın hər bir güşəsini ümumi vətəndən üstün tutur, birinci yerə doğma yurdunu qoyurdu. Hüseyn Cavidin məzarının köçürülməsi təkcə tarixi ədəbi irsin mühafizəsinə göstərilən qayğı deyil, şair, yazıçı, jurnalist və alimləri cəsarətli olmağa çağırış idi. Əcnəbi tarixçilərin yazdığı kimi, azərbaycanlılar XX əsrdə iki dəfə Bakıda başlarını dik tutaraq gəzmişdilər: birinici dəfə, 1918-ci ilin sentyabr ayında — Qafqaz İslam ordusu tərəfindən şəhər azad edildikdən sonra; ikinci dəfə isə özlərinə inamın artdığı 70-ci illərdə.Sonralar çıxışlarının birində Heydər Əliyev deyirdi: “Doğrudur, 22 il bundan öncə biz bilmirdik ki, Azərbaycan müstəqil dövlət olacaqdır.Lakin mən o vaxt Azərbaycanın müstəqilliyi fikri ilə yaşayırdım”.

Bakıdan Moskvaya

1982-ci ilin sonlarında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilməsi və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilməsi ilə Heydər Əliyevin həyat və fəaliyyətinin Moskva dövrü başladı. Türk, müsəlman olan Heydər Əliyevin Moskvada rəhbər vəzifələrə çəkilməsi, dünyanı lərzəyə salan sovet imperiyasını idarə edən şəxslərdən biri olması bir tərəfdən, dövlət idarəçilik bacarığı, yüksək intellektual səviyyəsi, Əfqanıstana müdaxilədən sonra müsəlman dünyasında itirilmiş sovet nüfuzunu bərpa etmək niyyətləri ilə bağlı idisə, digər tərəfdən isə xarici ölkələrdə nəşr edilmiş əsərlərdə yazıldığı kimi, onun Azərbaycandan uzalqaşdırılması, Kremldə daha yaxın nəzarət altında saxlanılması ilə əlaqədar idi. Mərkəzdə belə hesab edirdilər ki, Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan müstəqilliyə hazırlanıb, yalnız onun formal elan edilməsi qalır. Bunun qarşısını Heydər Əliyevi vəzifədən uzaqlaşdırmaqla deyil, Moskvada nəzarət altında saxlamaqla mümkün idi.

Lakin Heydər Əliyevdən sonra hakimiyyətə gələn Azərbaycan rəhbərləri respublikanın gücləndirilməsi xəttini davam etdirə bilmədilər. Azərbaycan geriyə getdi. SSRİ-də hakimiyyətə gələn Mixail Qorbaçov türk, müsəlman respublikalarının Leonid İliç Brejnev dövründə kifayət qədər irəli getdikləri, dövlət müstəqilliklərini elan etməyə hazır olduqları qənaətində idi. Buna görə də SSRİ rəhbərliyində olan türk dövlət xadimlərinə etinasızlıq göstərərək onları vəzifələrindən uzaqlaşdırdı, xalqlarını isə cəzalandırmaq yolunu tutdu. Heydər Əliyev də vəzifələrindən uzaqlaşdırıldı. Bundan sonra Azərbaycanın ağır günləri başlandı. Ermənistan əsassız ərazi iddiaları ilə Azərbaycanın daxili işlərinə qarışmağa və hərbi müdaxiləyə başladı. Ermənistanda tarixi torpaqlarında yaşayan azərbaycanlılar qovularaq qaçqına çevrildilər. Azərbaycanlılara məxsus tarix və mədəniyyət abidələri dağıdıldı. Hakimiyyət bütün bunların qarşısını almaq iqtidarında deyildi. Azərbaycan böhrana düşdü. Rəhbərlər bir-birinin ardınca dəyişdi. Lakin vəziyyət düzəlmədi.

Dönüş anı

SSRİ rəhbərliyi təcavüzkar Ermənistanı dayandırmaq əvəzinə, Azərbaycanı cəzalandırmaq yolunu tutdu. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda sovet qoşun hissələri dinc əhaliyə qarşı kütləvi qırğın törətdi. Azərbaycan xalqına qarşı qəddar repressiya aktı olan bu hadisədən sonra Heydər Əliyev Moskvada təhlükəsizliyinin təmin edilməməsinə baxmayaraq, ailə üzvləri ilə birlikdə Azərbaycan daimi nümayəndəliyinə gəlib bəyanat verərək 20 Yanvar qətliamını törədənləri ittiham etdi, ən ağır məqamda xalqının yanında oldu. Konkret mövqeyini ortaya qoydu. Bu, seçim anı idi. Heydər Əliyevin bu addımı onun gələcək siyasi və milli dövlətçilik fəaliyyətində zirvəyə aparan yolun başlanğıcı, ümummilli liderlik üçün ilk addım idi.

Heydər Əliyev az sonra bəyanat verərək Sov.İKP sıralarını tərk etdi. Onun Kommunist Partiyasının sıralarından bəyanat verərək istefa etməsi bu ideologiyanın iflasında mühüm rol oynayan amillərdən biri oldu. Minlərlə insan ondan nümunə götürdülər. 20 Yanvardan sonra xalq Moskva ilə yolunun bir olmadığı qənaətinə gəldi. Bu, bir dönüş anı idi. Azərbaycanın dövlət müstəqilliyini elan etməsindən başqa yolu qalmırdı. Respublika öz dövlət müstəqilliyinin bərpasının astanasında idi.

Moskvadan Naxçıvana

Moskvada yaşamağın mümkün olmadığını görən Heydər Əliyev Moskvadan Azərbaycana gəldi. Lakin respublika rəhbərləri onun Bakıda yaşaması üçün təminat vermədilər. Heydər Əliyev doğulduğu Naxçıvana

getdi. Naxçıvanlılar onu hərarətlə qarşıladılar. Az sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və sədri seçildi. Heydər Əliyevin sədrliyi altında Naxşıvan Muxtar Respublikası Ali Məclisi sovet dövrünün atributlarından imtina etdi. Azərbaycanın müstəqil dövlətçilik atributlarının bərpasına başlanıldı. Azərbaycan Xalq Cümhuriyyəti zamanı qəbul edilmiş üçrəngli bayrağımız ilk dəfə olaraq Naxçıvanda rəsmi olaraq dövlət bayrağı kimi qəbul edildi. Təkcə qəbul edilmədi. Azərbaycan rəhbərliyinə sovet dövrünün bayrağı, gerbi və himnindən imtina olunması da tövsiyə edildi. Beləliklə, Naxçıvan Azərbaycan milli dövlətçiliyinin bərpasının və qorunmasının bel sütununa çevrildi. Bir müddət sonra Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi. Bu, heç şübhəsiz, müasir tariximizin ən mühüm hadisələrindən biri oldu.

SSRİ dağıldıqdan sonra Azərbaycan xalqı və dövlətinin qarşısında əsasən aşağıdakı vəzifələr dururdu: Azərbaycanın dövlət müstəqilliyini tanıtmaq və qorumaq; Ermənistanın təcavüzünə son qoymaq; diktaturadan demokratiyaya, planlı təsərrüfatdan azad bazar iqtisadiyyatına keçid və s.

Lakin Azərbaycan rəhbərləri həmin vəzifələri yerinə yetirə bilmədilər. Hakimiyyət ilə xalq arasında uçurum yarandı. Hakimiyyət qanadları arasında ziddiyyətlər dərinləşdi.Ölkənin daxili və xarici siyasəti ağır vəziyyətə düşərək dalana dirəndi. Ermənistanın işğalının davam etdiyi bir şəraitdə Gəncədəki hərbi hissədə qiyam baş verdi. Qiyamı yatıra bilməyən hakimiyyət ölkədə baş verən proseslər üzərində nəzarəti tamamilə itirdi. Şimalda və cənubda separatçılıq gücləndi. Ölkə parçalanmaq təhlükəsi qarşısında qaldı. Azərbaycanın dövlət müstəqilliyi üçün təhlükə yarandı. Bu, Azərbaycan xalqının həyatında ağır günlər idi. Xalqı və dövləti uçurumdan çıxaran lider, dövlət xadimi yox idi. Xalqın mənəvi-psixoloji böhranı baş verdi. Sabaha ümidsizlik yaranmışdı. Xalq nicat yolu arayırdı. Təşkilati, dövlət idarəçilik bacarığına və qabiliyyətinə, intellektual səviyyəyə malik olmayan, xalqın dəstəyini itirmiş hakimiyyət beynəlxalq aləmdə ölkəni təcridçiliyə gətirmişdi. Belə şəraitdə vəzifədə olanlar bir-birinin ardınca istefa verərək məsuliyyətdən yaxa qurtarmaq yolunu tutdular. Bəziləri vəzifələrini "dondurdular", bəziləri isə qaçıb gizləndilər. Bu, Azərbaycan dövlətçiliyi tarixində pis bir an olub, gələcəkdə xatırlanası və müraciət ediləsi deyil, utanc olan bir tarix idi. Xalq bir suala cavab axtarırdı: Nə etməli? Ölkəni ağır şəraitdən kim çıxara bilərdi? Belə bir tarixi şəxsiyyət var idimi?

Naxçıvandan Bakıya

Bu suallara cavb tapıldı. Azərbaycan xalqı Heydər Əliyevə üz tutdu. Xalqın inamına görə, yalnız o, Azərbaycan dövlətini dağılmaqdan, xalqı məvəvi-psixoloji böhrandan xilas edə, Ermənistanın işğalını dayandıra, ölkəni fəlakətə salmış xarici siyasət kursunu dəyişib yeni əsaslar üzərində qura bilərdi. Çarəsiz qalan respublika rəhbərliyi xalqın tələbləri əsasında Heydər Əliyevi Bakıya dəvət etdi. Əvvəlcə parlament sədri seçilən, az sonra isə ölkə prezidentinin səlahiyyətlərini həyata keçirən Heydər Əliyevin qarşısında daxili siyasət sahəsində xeyli ağır vəzifələrin həll edilməsi dururdu: ölkəni dağılmaqdan, xaricdən dəstəklənən separatçılıqdan xilas etmək, milli birliyi bərpa etmək, hakimiyyətin strukturları arasında həmrəylik yaratmaq, xalq ilə hakimiyyət arasında uçurumu, inamsızlığı aradan qaldırmaq, iflic olmuş dövlət orqanlarını işlək hala gətirmək, ölkədə kriminogen şərait yaradan ayrı-ayrı dəstələri tərksilah etmək, insanların sakit və təhlükəsiz həyatını təmin etmək, ağır sosial-iqtisadi vəziyyətdə yaşayan xalqı inkişafa aparmaq və xalqının mənəvi-psixoloji ruhunu qaldıraraq dövlətin gücünü yaratmaq üçün etibarlı açarı tapmaq, köhnə sosializm sisteminin qalıqlarından imtina edərək uğurlu islahatlar aparmaq və s.

Xarici siyasət sahəsində Heydər Əliyevin qarşısında duran əsas vəzifələr dövləti qurmaq, Ermənistanın davam edən təcavüzünü dayandırmaq, ölkəni fəlakətə salmış bir istiqamətli, savadsız, Azərbaycan xalqı və dövlətinə düşmənlər qazandıran xarici siyasət xəttindən imtina etmək, ölkə daxilində dövlət quruculuğu üçün əlverişli beynəlxalq şərait yaratmaq və s. idi. Bütün bunları bir dövlət xadiminin həll etməsi xeyli mürəkkəb və çətin bir iş idi. Çünki Azərbaycan yerləşdiyi coğrafi-siyasi mövqeyi, təbii sərvətləri ilə yüzilliklər imperiya siyasəti təcrübəsi olan böyük dövlətlərin sınaq meydanına, "qurdlar süfrəsi"nə çevrilmişdi.

Heydər Əliyev Bakıya gələn kimi yeni bir liderlik keyfiyyətini ortaya qoydu, qiyamın baş verdiyi Gəncəyə təkbaşına getdi. Xalqın içində oldu. Gəncədə sabitlik tədricən bərqərar olmağa başladı.

Hakimiyyətə topsuz-tüfəngsiz gələn Heydər Əliyev ölkənin problemlərinin həllində zora deyil, məhz xalqa arxalandı. Azərbaycanı boğan separatçılıq bilavasitə xalqın iradəsi ilə "dəfn" edildi. Xalq ayağa qalxıb separatçıları qovdu. Azərbaycan xalqı dövləti müdafiə etdi. Lakin ölkə qarşısında həlli vacib olan digər məsələlər də dururdu. Ermənistan ilə müharibə davam edir, Azərbaycan əraziləri bir-birinin ardınca işğal edilirdi. Bu isə ölkənin inkişafına mane olan başlıca amil idi. Azərbaycan ya sonu görünməyən və nəticəsi bilinməyən müharibəni davam etdirməli, ya da hər hansı bir yol ilə atəşkəsə nail olub fasilə qazanmalı, dövləti qurmalı, onu möhkəmləndirməli idi. Heydər Əliyev atəşkəs yolunu seçdi. Dövlət idarəetməsini iflic halına, xalqı mənəvi-psixoloji böhrana salan, maliyyə və iqtisadi ehtiyatlarını udan hərbi əməliyyatlar dayandırıldı. Bu, Azərbaycana bir sıra məsələləri həll etməyə imkan verdi.

İnkişafın açarı

Heydər Əliyevin bilavasitə iradəsi nəticəsində "Əsrin müqaviləsi" imzalanaraq həyata keçirilməyə başladı. O, bir-biri ilə didişən ölkələri Azərbaycanda əməkdaşlığa dəvət etdi, onları ortaq məxrəcə gətirdi. Ərazicə kiçik, əhalisinin sayı az olmasına baxmayaraq, Azərbaycan özündən qat-qat böyük olan dövlətləri bir araya gətirməyi bacardı. Sual oluna bilər: ərazisinə və əhalisinin sayına görə kiçik bir dövlət olan Azərbaycanın dünya siyasətində rolunu artıran, mövqelərini gücləndirən, dünyanın cazibə mərkəzinə çevirən amillər hansılar idi. Heç şübhəsiz, bu sualın konkret cavabı var: Heydər Əliyevin təkcə daxili siyasət məsələlərini, xalqın psixologiyasını deyil, dünya işlərini mükəmməl bilməsi, zəkası, uzaqgörənliyi, müdrikliyi, biliyi, bacarığı, qətiyyəti. Bu, Heydər Əliyevin təkcə Azərbaycan xalqı deyil, həmçinin bəşəriyyət qarşısında nadir xidmətlərindən biri idi. Heydər Əliyevin qətiyyəti "Əsrin müqaviləsi" imzalandıqdan sonra baş verən dövlət çevrilişi cəhdlərinin qarşısının alınmasında özünü aydın şəkildə göstərdi. 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında baş verən dövlət çevrilişi cəhdləri məhz Heydər Əliyevin yenilməz qətiyyəti, siyasi bacarığı ilə iflasa uğradıldı. Azərbaycan xalqı qanuni hakimiyyəti müdafiə etdi. Bu çevrilişlərin qarşısının alınmasının Azərbaycan üçün tarixi və ibrətamiz bir tərəfi oldu. Heydər Əliyev göstərdi ki, Azərbaycan dövlət çevrilişləri üçün sınaq meydanı deyildir, Azərbaycanda güclü dövlət vardır. Bununla da silahlı yolla hakimiyyətə gəlmək kimi acı təcrübəyə son qoyuldu.

Çevrilişlərin qarşısının alınması digər bir mühüm məsələnin həllinə kömək etdi. Məlum olduğu kimi, Azərbaycanda sabitlik və sabaha ümidlər olmadığından xarici ölkələr və donor təşkilatlar Azərbaycana borc vermirdilər. Dövlət büdcəsində isə vəsait yox idi. Dövlət çevrilişlərinin qarşısı alındıqdan sonra Azərbaycana investisiya axını başladı. Yeni neft strategiyası ölkənin inkişafı, güclü dövlət qurulması, Azərbaycan xalqının daha yaxşı yaşayışını təmin etmək üçün açar oldu. İslahatlara başlanıldı. Özəlləşdirilmə həyata keçirildi. Azad bazar iqtisadiyyatına keçildi.Ölkənin demokratikləşdirilməsi istiqamətində islahatlar aparıldı. Çoxpartiyalı sistemin əsasları möhkəmləndirlirdi. Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ən başlıcası, Azərbaycanda təməlləri möhkəm olan, güclü dövlətçilik ənənəsinin, dərin dövlətin əsası qoyuldu.

Xarici siyasətdə yeni ab-hava

Ulu öndər hakimiyyətə qayıdarkən ölkənin xarici siyasəti böhran içində idi. Xarici siyasət xalqın və dövlətin qarşısında duran əsas vəzifələri yerinə yetirə, dövlət quruculuğu üçün əlverişli beynəlxalq şəraiti təmin edə bilmir, ölkəni problemlərə salırdı. Naşı insanların apardıqları xarici siyasət dövləti dalana dirəmişdi. Azərbaycan xalqı və dövlətinin maraqlarına cavab verməyən bu siyasətdən imtina edildi. Heydər Əliyev tarazlaşdırılmış xarici siyasət xəttini dövlətin beynəlxalq fəaliyyətinə gətirdi. O, ilk xarici səfərini dünya demokratiyasına böyük töhfə vermiş, Azərbaycanın dövlət müstəqilliyinin de-fakto tanındığı və erməni lobbisinin güclü olduğu Fransaya etdi. Bununla göstərdi ki, Azərbaycan demokratiya yolu tutub, dövlət müstəqilliyi daimi və əbədidir. Azərbaycan dövləti heç bir ölkənin deyil, yalnız öz maraqlarının yanındadır, erməni lobbisi və diasporunun fitnələrinə tutarlı cavab veriləcəkdir.

Azərbaycanın qonşu dövlətlərlə münasibətlərinin nizama salınması üçün addımlar atıldı. İran və Rusiya ilə mehriban qonşuluq münasibətləri tədricən bərqərar edildi. Türkiyə və Gürcüstan ilə strateji müttəfiqlik xətti seçildi. Azərbaycanın mehriban qonşuları, ticarət ortaqları, starteji tərəfdaşları və müttəfiqləri müəyyənləşdirildi.

Azərbaycan dövləti yeni neft strategiyasını reallaşdırdı. Çoxşaxəli neft və qaz kəmərləri inşa edilməyə başlandı. Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəməri Azərbaycanın müstəqilliyinin kəməri oldu. Hər hansı bir dövlətdən asılılığa son qoyuldu. Azərbaycanın neft strategiyası yenicə müstəqillik qazanmış Orta Asiya dövlətlərinin də dünyaya çıxışına kömək etdi. Tarixi İpək yolu bərpa edildi. Regionun geosiyasəti dəyişdi.

İnkişafdan doğan problemlər

Heydər Əliyev Azərbaycan dövlətini dağılmaqdan, xalqını parçalanmaqdan xilas etdi. Sabitlik yaratdı.Ölkəni inkişaf və islahatlar üçün hazırladı. Davamlı, sabit inkişafın təməli möhkəmləndirildi. Heç şübhəsiz, bütün bunlar asanlıqla başa gəlmədi. Azərbaycanın coğrafiyası elə 90-cı illərin əvvəllərindəki kimi eyni idi. Dəyişilməmişdi. Bəs nədən Azərbaycan belə bir inkişaf səviyyəsinə çatdı? Bu, geniş və dərin araşdırma tələb edən bir mövzudur.

Heç şübhəsiz, bütün digər ölkələr kimi Azərbaycan da problemlərsiz deyildir. Bu problemlər böhrandan, geriləmələrdən deyil, inkişafdan doğan problemlərdir. İnsanlar dünənkindən daha yaxşı yaşamağı istəyirlər. Bu isə yalnız müsbət bir haldır.

İbrət

Heydər Əliyevin fəaliyyətindən alınan ibrət çoxdur. İlk növbədə, heç şübhəsiz, göz önünə lider və idarəçilik bacarığı, daxili və dünya işlərini mükəmməl bilmək amilləri gəlir. Xalq hakimiyyət kürsüsünü naşı adamlara

verməməlidir. Təcrübə göstərdi ki, bu, ölkə üçün fəlakətlər yaradır. Xalq əgər sabit və davamlı inkişaf istəyirsə, dövlət güclü olmalıdır. Xalq dövlətinin yanında olmalı və onu qorumalıdır.

Gələcəyə böyük ümidlərlə

Heydər Əliyevdən sonra hakimiyyətə gələn Prezident İlham Əliyevin hakimiyyəti Azərbaycan tarixində müasirləşmə ilə səciyyələnir. Tarixi təcrübə göstərir ki, ölkənin böyük maliyyə vəsaitləri, zəngin təbii sərvətləri ola bilər. Əgər ölkə həmin təbii sərvətləri milli sərvətlərə çevirmirsə, yeni texnologiyaların tətbiqini həyata keçirmirsə, insanlar əməyi yadırğayarlarsa, ölkə digərlərindən geri qalır və çox vaxt da rəqabətə tab gətirmir. Buna dair çoxlu nümunələr gətirmək olar. Məhz Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan müasirləşən bir ölkəyə çevrildi. Azərbaycanı satış bazarına çevirmək istəyən bəzi ölkələr özləri Azərbaycan məhsulları üçün satış bazarına çevrildilər. Sovet dövrü başa çatdıqdan sonra yaranmış boşluqda Azərbaycan xalqının əməyi yadırğamasının qarşısı alındı. İlham Əliyev Azərbaycan xalqının minilliklər tarixində Qurucu Prezident adını qazandı.Azərbaycan ərazilərinin bir hissəsinin Ermənistan silahlı qüvvələrinin işğalı altında olmasına baxmayaraq, ölkə tərəqqi etdi, tikinti-quruculuq işləri genişləndirildi.Azərbaycan borc alan ölkədən borc verən ölkəyə çevrildi. Azərbaycan dünyanın enerji təhlükəsizliyində mühüm rol oynamağa başladı. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri Avropanın enerji təhlükəsizliyi sistemində Azərbaycanı başlıca ölkəyə çevirdi. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisinin uğurla başa çatması ilə Azərbaycan dünyanın nəqliyyat qovuşağı olan bir ölkəyə çeviləcəkdir.

İlham Əliyev də tariximizdə bir sıra "ilk"lərə imza atdı. BMT Baş Məclisində çıxış edən ilk Baş nazirimiz, ruhumuzun şəhəri Təbrizə səfər edən ilk dövlət rəhbərimiz oldu. Azərbaycan BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi. İlham Əliyev Təhlükəsizlik Şurasının iclasına sədrlik edərək və ən vacib dünya məsələləri barədə nitq söyləyərək dünya müdiriyyətinə rəhbərlik etdi. "Eurovision" mahnı yarışması ən mükəmməl şəkildə ölkəmizdə keçirildi. Tariximiz, maddi və mənəvi mədəniyyətimiz heç bir zaman həmin yarışma keçirildiyi vaxtdakı kimi təbliğ edilməmişdi. İşğal edilmiş ərazilər istisna olmaqla, Azərbaycan, ərazisində xarici hərbi baza və ya obyekt saxlamayan bir ölkəyə çevrildi. Azərbaycan kosmosa ilk peykini göndərərək Kosmos klubunun üzvü oldu. Tariximizdə ilk dəfə olaraq İlham Əliyev "dövlət canlı orqanizmdir, daim genişlənməlidir" geosiyasi nəzəriyyəsini xarici ölkələrə sərmayələr qoymaqla, geniş əməkdaşlıq yolu ilə gerçəkləşdirdi. Azərbaycanın birinci Avropa Olimpiada oyunlarına 2015-ci ildə ev sahibliyi etməsi hər bir azərbaycanlı üçün qürurverici amil olacaqdır.

Alternativ varmı?

Bəzən soruşurlar: Heydər Əliyev yolunun Azərbaycanda alternativi varmı? Heç şübhəsiz, vardır. Həmin yol Azərbaycanı dağıtmaq, milli dövləti məhv etmək, ölkəni və xalqı parçalamaq, vətəndaş müharibəsinə sürükləmək, onu rəzil günə salmaq yoludur. Azərbaycan xalqı çətin ki, həmin yolu qəbul etsin.

Ötən illərin təcrübəsi göstərir ki, Heydər Əliyevin əsasını qoyduğu siyasi xətdən kənara çıxmaq Azərbaycana böyük fəlakətlər gətirər. Bu, həm də qonşu dövlətlər üçün arzuolunmaz proseslərin başlanması olar. Bu siyasətin davam etdirilməsi həm Azərbaycan xalqının, həm qonşu dövlətlərin, həm də bütün demokratik ölkələrin maraqlarına uyğundur.

**"Xalq qəzeti".**-2013.-19 aprel.-N 82.-S.3.

# MÜSTƏQİL AZƏRBAYCAN ELMİNİN VƏ TƏHSİLİNİN MEMARI

**Siyavuş Qarayev,**
ADNA–nın rektoru, əməkdar elm xadimi, akademik.

Ümummilli lider Heydər Əliyevin ictimai–siyasi fəaliyyətində elmə və təhsilə göstərilən qayğı həmişə mühüm yer tutmuşdur. Təsadüfi deyil ki, XX əsrin son 30 ilində Azərbaycan İntibahını şərtləndirən amillər sırasında elmin və təhsilin yüksəlişi xüsusi diqqəti cəlb edir. Azərbaycanda ali təhsil ocaqlarının və elmi–tədqiqat institutlarının yaradılması, xalqın təhsilə cəlb olunması, Elmlər Akademiyasının gərgin axtarışlarla zəngin fəaliyyəti – bütün bunlar məhz XX əsrin 70–ci illərindən başlayaraq Azərbaycanda elmin və təhsilin sürətli inkişafını nümayiş etdirən təkzibedilməz faktlardır. Təkcə 1969–1982–ci illərdə Azərbaycanın şəhər, kənd və qəsəbələrində 700–ə qədər məktəb binası istifadəyə verilmiş, respublikada ali məktəb tələbələrinin sayı 70 mindən 100 min nəfərə çatdırılmışdır. Yenə də həmin illərdə Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu ən dəyərli ənənələr sırasında gərəkli ixtisaslara yiyələnmək üçün azərbaycanlı gənclərin keçmiş SSRİ–nin qabaqcıl elm və təhsil mərkəzlərinə göndərilməsi təcrübəsi xüsusi yer tutur.

Əgər 1969–cu il üçün Azərbaycandan kənarda təhsil almağa cəmi 67 nəfərin getməsi planlaşdırılırdısa və bunların əksəriyyəti qeyri–azərbaycanlı olurdusa, artıq 80–ci illərin əvvəllərində hər il 1000–1400 nəfər respublikadan kənarda təhsil almağa göndərilirdi ki, onların da böyük əksəriyyətini azərbaycanlı gənclər təşkil edirdi. Azərbaycanlı hərbi kadrların yetişdirilməsi sahəsində də bu siyasət həyata keçirilirdi. Təkcə 1982–ci ildə SSRİ–nin ali hərbi məktəblərinə qəbul olunan 1000 nəfərdən 550 nəfəri milliyyətcə azərbaycanlı olmuşdur.

Azərbaycan elminin gələcəyinə göstərilən hədsiz qayğı və diqqətin təzahürünü ulu öndərin ziyalılarla görüşündə dediyi sözlərdən görmək olur: "Mənə sədalar gəlir ki, Elmlər Akademiyasını, institutları dağıtmaq istəyirlər, elm ocaqlarına biganə münasibət var. Biz bunların hamısına son qoyacağıq. Hansı iqtisadiyyat olur–olsun, elm inkişaf etməlidir. Elmlər Akademiyası Azərbaycan xalqının tarixi nailiyyətidir. 1945–ci ildə bu akademiyanı yaradan alimlər çox böyük şücaət göstərmişlər. Ötən dövrdə bu akademiyanın çərçivəsində Azərbaycan elmi çox inkişaf etmişdir. Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da, institutlar da fəaliyyət göstərəcəklər və biz buna imkan yaradacağıq. Azərbaycan elmi inkişaf etməlidir." 1993–cü ilin sentyabrında deyilən bu sözlər elm və təhsilə verilmiş ən yüksək qiymət olmaqla yanaşı, həm də onların perspektivlərinin çox uğurlu olacağını göstərdi və o çətin şəraitdə bəlkə də heç kəsin ağlına gəlməyən elm və təhsil islahatlarının başlanğıcını qoydu. Beləliklə, həyatımızın digər sahələrində olduğu kimi, burada da islahatların məhz 1993–cü ilin ikinci yarısından sonra başlandığını söyləyənlər, heç şübhəsiz ki, tamamilə haqlı idilər. Lakin onu da unutmaq olmaz ki, bu gün həmin islahatları hazırlayanlar və həyata keçirənlərin çoxu 1969–1982–ci illərdə elm və kadr potensialının yüksəldilməsini təmin etmək üçün həyata keçirilmiş tədbirlər nəticəsində yetişmiş yüksək ixtisaslı elm və təhsil nümayəndələridir.

Ölkədə yaranan yeni iqtisadi–sosial şərait, həyata keçirilən mürəkkəb islahatlar elmi fəaliyyətin canlanmasını və baş verən böyük dəyişikliklərə adekvat cavab verilməsini tələb edir. Bu gün ölkəmiz dünyanın sürətlə inkişaf edən dövlətləri sırasındadır, onun elmi də bu səviyyəyə yüksəlmişdir. Dövlət bu gün elmdən idarəçilik sistemində qəbul edilən siyasi qərarların elmi bazasını yaratmağı, həyata keçirilən digər qərarların nəticəsinin düzgün təhlilini, cəmiyyətimizin öyrənilməsi ilə bağlı tədqiqatların aparılmasını gözləyir. Qlobal elm məkanına uğurlu inteqrasiya üçün alimlərimiz ölkədə elmin nüfuzunu və əhəmiyyətini yüksəltməlidirlər. Bunun üçün elmi tədqiqatların elmi və praktiki əhəmiyyəti, həqiqi aktuallığı təmin olunmalı, elmi işlər elm naminə, cəmiyyətin inkişafı naminə aparılmalı, elmin, alimin adının təmizliyi qorunmalıdır.

Heydər Əliyev ziyalılarla görüşündə elmi tədqiqatların səviyyəsinin aktuallığını, əhəmiyyətini artırmağı, onları müasir dövrün tələbləri səviyyəsinə qaldırmağı, bu yönümdə ciddi müzakirələr keçirməyi elmi araşdırmaların mövzuların yenidən baxılmasını zamanın qarşıya qoyduğu problemlər nöqteyi–nəzərindən təhlil edilərək, yeni tədqiqat istiqamətlərini müəyyənləşdirməyi bir vəzifə kimi qarşıya qoymuşdur. Ulu öndər elmi mühitin formalaşması üçün elmi informasiya mübadiləsinin müxtəlif formalarından geniş istifadə edilməsinin əhəmiyyətini qeyd etmişdir. Dünya elmində gedən proseslər, aktual mövzular, böyük elm mərkəzlərinin həyata keçirdiyi tədqiqatların məzmunu və nəticələri – bütün bu məsələlər barədə informasiya ilə tanışlıq alimlərimizin, elmi müəssisələrimizin işinin yenilənməsi üçün çox vacibdir. Dünya elminə inteqrasiya yolunda qarşımızda duran ən ciddi problemlərdən biri dillə bağlıdır. Bu faktor geniş informasiya toplamağımızı, elmi əlaqələr yaratmağımızı, aparıcı elm mərkəzlərinin keçirdiyi konfranslarda fəal iştirak etməyimizi çətinləşdirən bir maneədir. Bunu nəzərə alan ulu öndərimiz rusdilli məkanında yaşayan yaşlı nəsildən fərqli olaraq orta, yaşlı və gənc alimlərimizin ingilis dilinə, Avropa dillərinə yiyələnməsi üçün şərait yaradılmasına xüsusi diqqət yetirmişdir.

Heydər Əliyev qarşıda duran vəzifələrin böyük və məsuliyyətli olacağını dəfələrlə vurğulamış, onların uğurlu həlli üçün elmi fəaliyyətin təşkilinin müasir tələblərə cavab verməsini qeyd etmişdir: "Milli Elmlər Akademiyası ilə ali məktəblər arasında əlaqələr və işbirliyi yeni əsaslar üzrə daha da səmərəli qurulmalıdır. Universitetlərdə fəaliyyət göstərən alimlər elmi tədqiqatların koordinasiya şuralarına cəlb edilməlidirlər".

Respublikamızda elmin, təhsilin inkişafı sahəsində mövcud ənənələrin milli məqsədə yönəldilməsi, bu ənənələrin çağdaş dövrün tələbləri səviyyəsində inkişafı, istisnasız olaraq müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan elminin, təhsilinin, ümumilikdə mədəniyyətin inkişafında əvəzsiz xidmətləri olmuş, ulu öndər ölkəyə rəhbərliyinin bütün dövrlərində bu sahələrə diqqət və qayğısını əsirgəməmiş xalqın rifahını məhz intellektual fəal tərəqqidə görmüşdür. Elmin, təhsilin inkişafı milli–mənəvi dəyərlərə həssas münasibət müstəqil Azərbaycan Respublikasına rəhbərliyi dövründə də Heydər Əliyevin fəaliyyətinin əsas qayəsini, leytmotivini təşkil etmişdir. Dövlət müstəqilliyinin ilk illərində ölkəyə rəhbərlik etmiş naşi qüvvələrin biganə münasibəti ilə üzləşərək tənəzzülə uğrayan bu sahələr məhz Heydər Əliyevin xalqın israrlı tələbi ilə hakimiyyətə qayıdışından sonra böhrandan çıxmışdır.

Heydər Əliyevin fərmanı ilə Elmlər Akademiyasına Azərbaycan Milli Elmlər Akademiyası adı verilmiş və bununla da akademiyanın elmimizin inkişafında əldə etdiyi nailiyyətlər, Azərbaycan xalqının mədəni və mənəvi təşəkkülündə oynadığı rol respublika ictimaiyyətində olan nüfuzlu və akademik elmin ölkənin inkişafının əsas təminatçılarından olması fikri bir daha təsdiqlənmişdir. AMEA–nın çoxminli kollektivinin əməyinə verilən yüksək qiymət onun təzahürüdür ki, 90–cı illərin bütün çətinliklərinə baxmayaraq, akademiyanın fəaliyyəti bir an belə dayanmadı, riyaziyyat, fizika, neft kimyası, geologiya və biologiyanın müasir sahələri üzrə yaradılmış elmi məktəblər daha da inkişaf etmişdir; keçmiş ideologiyanın strukturlarından azad olmuş tarix, ədəbiyyat, dil, iqtisadiyyat, fəlsəfə və hüquq elmləri yeni demokratik, hüquqi dövlətin möhkəmlənməsinə, Azərbaycan xalqının mədəniyyətinin və incəsənətinin inkişafına öz layiqli töhfələrini vermişdir.

Fundamental tədqiqatlar əsasən respublikamızın sosial, iqtisadi inkişafı məqsədi və elmin məntiqi inkişaf tələblərinə cavab verən istiqamətlərində aparılmışdır. İlk növbədə, yeni fundamental elmi biliklər əldə etmək zəminində respublikamızın yanacaq–enerji kompleksinin yenidən qurulması, neft–kimya, metallurgiya, maşınqayırma komplekslərinin inkişafı, aqrar və torpaq islahatlarının səmərəliliyinin və sürətinin artırılması ilə bağlı problemlərin həlli əsas məqsəd kimi qarşıya qoyulmuşdur.

İctimai elmlər sahəsində müstəqillik illərində xeyli nailiyyətlər qazanılmışdır – arxeoloqlarımız, şərqşünaslarımız, filosoflarımız xeyli işlər görmüşlər. İqtisadçı alimlərimiz müasir şəraitdə respublika iqtisadiyyatının inkişafı, onun iqtisadi təhlükəsizliyinin təmin edilməsi və əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına yönəldilmiş ən mühüm sosial–iqtisadi məsələlərlə bağlı, o cümlədən bazar iqtisadiyyatına keçidlə əlaqədar yeni iqtisadi münasibətlərin formalaşması demokratik inkişafın və məşğulluğun sosial–iqtisadi problemləri, ölkə sənayesində struktur–investisiya problemləri, Azərbaycanda elmin potensialından səmərəli istifadə edilməsi, sahibkarlığın formalaşması və inkişaf məsələləri, aqrar münasibətlərin bazar iqtisadiyyatı tələblərinə uyğun tənzimlənməsi və s. aktual mövzularda tədqiqat işləri aparılmış və mühüm elmi nəticələr əldə olunmuşdur.

Milli münasibətlər üzrə ixtisaslaşmış alimlərimizin tədqiqat işləri, ictimai–siyasi problemləri araşdıran alimlərimizin əsərləri diqqəti cəlb edir. İnsan hüquqları sahəsində fəaliyyət göstərən alimlərimiz qiymətli tədqiqatlar aparmaqla yanaşı, BMT, Avropa Şurası, ATƏT–in Demokratik Təşkilatlar və İnsan Hüquqları Bürosu kimi beynəlxalq qurumlarla bir sıra xarici ölkələrin müvafiq elmi–tədqiqat müəssisələri, dövlət və qeyri hökumət təşkilatları ilə əməkdaşlıq edirlər.

1997–ci il yanvarın 31–də ziyalılarla görüşən Heydər Əliyev elm sahəsində islahatların aparılmasının vacibliyini təsdiqləmiş, Azərbaycanda elmi inkişaf strategiyasının əsas müddəalarını qəti olaraq müəyyənləşdirmişdir. Bu görüş elmin nüfuzunu yenidən artırdı. Onun cəmiyyətdəki rolu və mövqeyini möhkəmləndirdi.

Ulu öndər Heydər Əliyevin imzaladığı: "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümü haqqında" fərmanda ölkəmizin milli dövlətçilik kontekstində irəli sürülən konseptual müddəalar işığında müstəqil dövlətimizin təsisatlarının təməl sahələrindən olan milli təhsil sistemindən, ötən dövrdəki nailiyyətlərimizdən, nöqsanlarımızdan, təhsil quruculuğu və islahatların gedişində YUNESKO tərəfindən "Təhsil əsri – intellektual əsr" elan edilmiş XXI əsrdə təhsilimizin üstün istiqamətlərindən, perspektivlərindən ətraflı bəhs edilmişdir.

Bu gün iftixarla demək olar ki, xalqımızı müstəqil inkişaf yoluna hazırlayan bütün sahələrdə olduğu kimi, milli təhsil sahəsində qazanılmış böyük nailiyyətlərdə də Azərbaycanın rəhbəri missiyasını 30 ildən artıq bir dövrünü öz qüdrətli çiyinlərində uğurla üçüncü minilliyə daşımış böyük şəxsiyyət Heydər Əliyevin müstəsna xidmətləri vardır. Təəssüf ki, Azərbaycan təhsilinin böyük himayəçisi Heydər Əliyevin yüksək dövlət

vəzifələrindən uzaqlaşdırılması ilə onun başladığı və on ildən artıq bir müddətdə uğurla həyata keçirdiyi quruculuq işləri 80–ci illərin sonu – 90–cı illərin əvvəllərində dayandırılmışdı.

1985–ci ildən başlanan uydurma "yenidənqurma" siyasəti ölkədə gedən ictimai–siyasi proseslər, sonra isə Qarabağ müharibəsi təhsilin inkişafında geriləməyə, böhrana geniş yol açdı. Bu proses müstəqilliyin ilk illərində daha da dərinləşdi. Təhsildə böhranlı vəziyyətin yaranmasına 1992–ci ilin sonunda qəbul olunan "Təhsil Qanunu" da təsir etdi. Heydər Əliyev bu barədə demişdir: "Təəssüflər olsun ki, Azərbaycanda bu mühüm sahəyə 1992–ci ildə qəbul olunmuş "Təhsil Qanunu" ilə böyük zərbə vurulmuşdur." 1991–1993–cü illər milli müstəqilliyimizin qorunması yolunda digər sahələrdə olduğu kimi təhsil sferasında itirilmiş illər sayılır. Yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bu tənəzzülə son qoyuldu.

Heydər Əliyevin tarixi qayıdışından sonra ölkədə hazırlanan və həyata keçirilən strateji xətt təhsil müəssisələrini normal vəziyyət halına gətirməklə təhsilin milli tərəqqisinin həqiqi, güclü amilinə çevrilməsi üçün bu sahədə geniş islahatlar proqramının işlənib hazırlanması və həyata keçirilməsi vəzifəsini irəli sürdü. Təhsil sahəsində islahatlar aparılmasına dövlət təminatını gücləndirdi. Bu məqsədlə ölkə Prezidenti 1998–ci ilin martında "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyası yaradılması haqqında" sərəncam imzaladı. Dövlət komissiyası tərəfindən qısa müddətdə "Azərbaycan Respublikasının təhsil sahəsində islahatlar proqramı" hazırlandı, hərtərəfli müzakirələrdən sonra təkmilləşdirilmiş variantda 1999–cu ilin iyununda dövlət başçımız tərəfindən imzalandı və qüvvəyə mindi. Həmin proqram Azərbaycanda təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasını vacib saysa da, eyni zamanda milli təhsil ənənələrimizə sədaqətin və varisliyin də parlaq təzahürünə çevrildi, respublikamızda heç bir başqa ölkənin təhsil sisteminin olduğu kimi tətbiq edilməsinin yolverilməzliyini göstərdi.

İslahat proqramının 3 mərhələdə (1999, 2000–2003–cü illər, 2004–cü ildən sonrakı dövr) həyata keçirilməsi və bu mərhələlərdə 130–a qədər konkret tədbirlərin reallaşdırılması nəzərdə tutulmuşdur.

Azərbaycan təhsil tarixində ilk dəfə ümumi orta təhsilin dövlət standartları və bazis tədris planı 1999–cu ildə hazırlanıb təsdiq edildi. Ümumtəhsil məktəblərinin yeni milli dərsliklərinin yaradılması istiqamətində ciddi addımlar atıldı, yeni əlifbaya keçildi. Prezidentin "Bizim bu günümüz, gələcəyimiz məhz latın əlifbası ilə bağlıdır" tarixi çağırışı o vaxt təhsil sistemində özünün tam həllini tapdı.

Müstəqillik illərində ali təhsil pilləsi həm məzmun, həm struktur, həm də kəmiyyət baxımından inkişaf yolu keçmişdir. Azərbaycan ali təhsil tarixində ilk dəfə olaraq 1993–1994–cü dərs illərindən etibarən iki pilləli ali təhsilə — 4 illik bakalavriat və 2 illik magistraturaya keçilmişdir. Dövlət ali məktəblərinin sayı 17–dən 2001–ci ildə 30–a çatdırılmışdır. Qeyri–dövlət ali təhsil müəssisələrinin sayı artmışdır. Ali təhsil sahəsində yeniliklərdən biri də "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Prezidentin 13 iyun 2000–ci il tarixli fərmanı ilə ölkənin aparıcı ali məktəblərinə — Bakı Dövlət Universitetinə, Azərbaycan Dövlət Neft Akademiyasına, Azərbaycan Tibb Universitetinə və Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına maliyyə müstəqilliyi, bəzi ali məktəblərə "Universitet" statusu verilmişdir. Bu fərmanla təhsil sistemində indiyədək ölkəmizdə analoqu olmayan ali tədris müəssisəsi – Azərbaycan Müəllimlər İnstitutu və onun 12 bölgədə regional filiallarının yaradılması islahat istiqamətində atılan uğurlu addımlardandır.

Təhsil sahəsində beynəlxalq əlaqələr genişlənmişdir — dünyanın inkişaf etmiş 40–a yaxın ölkəsində 160–a yaxın ixtisas üzrə 3000–dən artıq azərbaycanlı gənc təhsil alır. Təxminən 50 xarici ölkədən Azərbaycanın müxtəlif ali məktəblərində 2000–dən çox bakalavr, magistr, doktorant təhsil alır. Azərbaycan Respublikası dünyanın 30–dan çox ölkəsi ilə ali təhsil sahəsində genişmiqyaslı əməkdaşlıq edir.

Müasir Azərbaycan təhsili zəngin mütərəqqi ənənələrinə, milli–mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq milli təhsil quruculuğu sahəsində başladığı lazımi islahatları uğurla başa çatdıracaq, təhsil islahatlarının memarı və qurucusu Heydər Əliyevin müdrik tövsiyələrini əzmlə həyata keçirəcəkdir.

Müstəqil Azərbaycanın son illərdə davamlı tərəqqi və yüksəliş dövrünü yaşaması, elmi təmələ söykənən iqtisadi siyasət nəticəsində keçid dövrünü inamla başa vurması ulu öndərimiz, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək, ardıcıl və tarazlı tərəqqinin təmin edilməsi üçün elmin və təhsilin rolunu yüksək dəyərləndirməsi və bu sahəyə xüsusi qayğı göstərməsi nəticəsində mümkün olmuşdur. Elmə, təhsilə yüksək dəyər verən, bu sahələrin saflığını təmin edən ziyalı, alim adının ucalığını saxlamaq üçün qətiyyətli addımlar atan Heydər Əliyev respublikanın elmi prinsiplər üzərində inkişafının təməlini qoymuş, yeni–yeni ali məktəblər, elmi–tədqiqat institutları açmış, ali məktəblərə qəbul prosesində şəffaflığı və obyektivliyi təmin etmiş, gələcək naminə azərbaycanlı kadrların hazırlanması üçün minlərlə gənci xarici ölkələrin aparıcı mərkəzlərində təhsil almağa göndərmişdir.

Azərbaycanda təhsilin, pedaqoji fikrin, təlim–tərbiyə ocaqlarının tarixi qədim dövrlərlə bağlı olsa da, müasir, yeni tipli məktəblərin əsası, çağdaş milli təhsilimizin təməli XIX əsrin sonlarında qoyulmuş, XX əsrin əvvəllərində genişlənmiş, Xalq Cümhuriyyəti dövründə milli təhsil quruculuğu dövlət siyasətinə çevrilmiş,

Sovet hakimiyyəti illərində milli dəyərlərin kifayət qədər nəzərə alınmaması ilə bağlı müəyyən nöqsanlar olmasına baxmayaraq, güclü təhsil sistemi formalaşmış, Respublikanın zəngin intellektual potensialı yaranmış, xüsusən 70–ci illərdə, sözün əsl mənasında, ölkəmizdə Azərbaycan məktəbi yaranmışdı. Doğma Azərbaycan dilində gənclərə mükəmməl təhsil verən orta və ali məktəblərin yaranması, güclü intellektual potensialın formalaşması milli müstəqilliyə gedən yolda əldə etdiyimiz ən böyük tarixi nailiyyətlərdəndir.

Müasir dünyada hər bir ölkənin uğurlu gələcəyi elm və təhsilin səviyyəsi ilə müəyyən olunur. Təcrübə göstərir ki, təbii sərvətlərin bolluğu dövlətin inkişafının əsas göstəricisi deyildir. Bu sərvətlər cəmiyyətin hərəkətverici qüvvəsi olan insan kapitalına keçidi təmin etməlidir. Bir sıra aparıcı ölkələr malik olduqları maddi resurslardan daha çox, təhsil sisteminin yetişdirdiyi insan kapitalından böyük gəlirlər əldə edirlər.

Müstəqillik dövründə ali məktəblərin kadr potensialı və müəllimlərin ixtisasartırma təhsili müasir tələblərə uyğunlaşdırılmış, kadr hazırlığında informasiya–kommunikasiya texnologiyalarından istifadə işi genişləndirilmiş, ali məktəblərin maddi–texniki bazası müasir tələblər səviyyəsinə qaldırılmışdır. Elmin inkişafı və iqtisadiyyatın texnoloji baza səviyyəsinin yüksəldilməsini nəzərdə tutan bir sıra sənədlərin qəbulu dövlət səviyyəsində elmə göstərilən qayğının təcəssümüdür.

Ulu öndərin siyasətini bütün sahələrdə inamla davam etdirən Prezident İlham Əliyev elmə, təhsilə qayğını ilk gündən mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmiş və qeyd etmişdir ki, “iqtisadi inkişaf strategiyasını elmi əsaslar üzərində quran, hər zaman mütərəqqi ənənələrə istinad edən dövlətlər dinamik inkişafa nail olur, dünya arenasında layiqli yerlərini tuturlar”. Bu gün hər bir dövlətin gücü və qüdrəti təkcə onun təbii sərvətləri ilə deyil, məhz elmi–intellektual potensialı, insan kapitalı ilə müəyyənləşir. Respublikamızda da bu reallıq nəzərə alınır, neftdən əldə olunan gəlirlər elmin, təhsilin inkişafına yönəldilir.

İqtisadiyyatla elmin səmərəli vəhdətinə nail olmaq, idarəçilikdə yeni texnologiyalara, innovasion yeniliklərə istinad etmək, biliklərə əsaslanan iqtisadi inkişaf modeli formalaşdırmaq, gənclərdə elmə marağı gücləndirmək bu siyasətin əsasını təşkil edir. Həyata keçirilən uğurlu siyasət Azərbaycanı regionda lider dövlətə çevirmişdir. Azərbaycan cəmiyyətinin bütün sahələrində mənəvi intibah və tərəqqi duyulur, infrastruktur yeniləşir. Bütün bunların nəticəsi kimi respublikamız dünyada səsi, sözü eşidilən dövlətə çevrilmişdir. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə “Azərbaycan Respublikasında 2009–2015–ci illərdə elmin inkişafı üzrə Milli Strategiya” və “Azərbaycan Respublikasında 2009–2015–ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət proqramı” təsdiqlənmişdir. Bu sənədlərdə elmin mövcud durumu, yaranmış vəziyyət, habelə nöqsanların, çatışmazlıqların aradan qaldırılması üçün vəzifələr nəzərdə tutulur. Prezident İlham Əliyev 26 aprel 2011–ci ildə AMEA–nın illik yığıncağında çıxış edərək demişdir: “Bu gün Azərbaycan iqtisadiyyatı qarşısında duran çağırışlar elmin inkişafı ilə bilavasitə bağlı olmalıdır”.

Prezidentin 21 oktyabr 2009–cu il sərəncamı ilə Prezident yanında Elmin İnkişaf Fondunun yaradılması ölkədə elmin inkişafı istiqamətində atılmış mühüm bir addımdır. Bu fondun yaradılmasında məqsəd “Azərbaycan Respublikasında fundamental elmi tədqiqatların stimullaşdırılması, ölkəmizin təbii resurslarının, mədəni və tarixi irsinin öyrənilməsinin gücləndirilməsi, elmin müxtəlif sahələrində aparılan araşdırmaların səmərəliliyinin artırılması və dünya elm məkanında Azərbaycan elminin layiqincə təmsil olunmasının təmin edilməsi” kimi ifadə edilmişdir. Bunlar bütövlükdə elmi tədqiqatlar və onların səmərəliliyinin artırılmasına yönələn mütərəqqi niyyətləri qarşıya qoyur. Elmə ayrılan xərclərin 80–90 faizdən çoxu birbaşa və dolayı şəkildə dövlət büdcəsi hesabına formalaşır. Özəl sektorun payı çox cüzidir, həmçinin elmə ayrılan xərclərdən istifadənin də 60–70 faizi dövlət sektorunun payına düşür.

Bu gün elmin, təhsilin maddi–texniki bazası inkişaf etdirilir, yeniləşir, ən müasir, qabaqcıl texnologiyalar ölkəmizə gətirilir, onların əhalinin geniş kütlələri tərəfindən mənimsənilərək ümumi işin səmərəsi üçün tətbiq edilməsi istiqamətində tədbirlər həyata keçirilir. Dövlət təşkilatlarının, Heydər Əliyev Fondunun vasitəsi ilə təhsil müəssisələrinin şəbəkəsi genişləndirilir, bazası möhkəmləndirilir. Ölkəmiz təhsilin, səhiyyənin, bütövlükdə sosial sahənin inkişafına dövlət qayğısına görə dünyanın ən qabaqcıl ölkələri ilə bir sırada dayanır. Prezident İlham Əliyev qeyd etmişdir ki, bu gün ölkə qarşısında duran vəzifələr prioritet əsasında müəyyən edildiyi kimi, elm qarşısında duran məsələlər də eyni qaydada həll olunmalıdır.

Heydər Əliyevin elmin inkişafı ilə bağlı söylədiyi “Gələcək bilikli, elmli, istedadlı insanların çiyinləri üzərində qurulur” fikri cənab İlham Əliyev tərəfindən “Biz neft gəlirlərinin insan kapitalına çevrilməsini təmin etməliyik” müddəası ilə daha da zənginləşdirilmişdir. XXI əsrdə davamlı insan amilinin inkişafına yönələn bu çağırış məhz gələcək nəslə ünvanlanmış təhsil sisteminin özəyini təşkil etməlidir.

**“Respublika”.-**2013.-19 aprel.-N 80.-S.8.

# HEYDƏR ƏLİYEV ZƏMANƏMİZİN GÖRKƏMLİ DİPLOMATIDIR

**Həsən HƏSƏNOV**
Azərbaycan Respublikasının
Polşa Respublikasındakı
fövqəladə və səlahiyyətli səfiri

**Azərbaycan diplomatiyasının xüsusiyyətlərindən biri ondan ibarətdir ki, o, tarix boyu sülhpərvər, tolerant xarakteri ilə fərqlənmişdir. Azərbaycan diplomatiyasına retrospektiv baxış göstərir ki, tarixin, ilk növbədə, Azərbaycanın geosiyasi mövqeyindən irəli gələn bütün gözlənilməz dəyişikliklərinə baxmayaraq, Azərbaycan hökmdarları hər zaman regional sabitliyə, dövlətlərin maraqlarının tarazlaşdırılmasına, mübahisəli məsələlərin ədalətli həllinə, bütün münaqişələrin nizama salınmasında sülhün əsas şərt olmasını dəstəkləyən siyasətin yürüdülməsinə nail olmağa çalışırdılar.**

**Azərbaycan qədim və inkişaf etmiş dövlətçilik ənənələrinə malik olan ölkədir. Azərbaycanın ilk dövlət qurumları hələ e.ə. III-II minilliklərdə yaranmışdır. Azərbaycan diplomatiyasının rüşeymləri də həmin dövrdən qaynaqlanır. Qədim dünyanın siyasi, iqtisadi və mədəni mərkəzi olmuş Mesopotamiyada cərəyan edən coşqun siyasi hadisələrə cəlb edilmiş ilk Azərbaycan dövlətləri yarandıqları andan öz müstəqilliyini qoruyub saxlamaq üçün mübarizə aparmağa məcbur idilər. Xarici siyasətin özünəməxsus cəhətləri, ilk diplomatik addımların istiqamətləri (ikitərəfli müqavilələr imzalanması, hərbi və iqtisadi ittifaqlar bağlanması, qarşılıqlı təhlükəsizlik sisteminin yaradılması) məhz bu amillərlə müəyyən olunurdu. Qədim Azərbaycan dövlətləri - Manna, Midiya, Aşquz, Sakasena, Atropatena, Albaniya diplomatiya sahəsində Babilistan, Şumer, Assuriya, İran, Parfiya, qədim Yunanıstan, Roma, Bizans və başqa güclü dövlətlərlə intensiv əlaqə saxlayırdılar.**

Orta əsrlərdə Azərbaycanda Sacilər, Salarilər, Atabəylər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər sülalələri bir-birini ardıcıllıqla əvəz edərək, qüdrətli Azərbaycan dövlətini yaratmış və diplomatik fəaliyyəti daha da intensivləşdirmişlər. Bu diplomatik fəaliyyətin öz dövrünün ən böyük dövlətlərindən birinin hökmdarlarının adı ilə bağlı olmasına baxmayaraq, həmin fəaliyyət təcavüzkar xarakter daşımır, siyasi müqavilələr və ittifaqlar bağlanmasına yönəlirdi. Dövlət başçıları arasında fəal yazışmalar aparılır, Fransa, Türkiyə, Almaniya, İngiltərə, Rusiya, İspaniya, İtaliya, Vatikan, Portuqaliya, Hindistan, Çin, Orta Asiya... məmləkətlərindən Azərbaycan hökmdarlarının saraylarına elçilər göndərilirdi. Öz növbəsində Azərbaycan hökmdarları da bu dövlətlərin paytaxtlarına səfir missiyaları göndərirdilər. Bağlanmış ittifaqlar, müqavilələr, bir qayda olaraq, yalnız bir məqsədə - regionda sülhün qorunub saxlanmasına, hərbi təhlükənin, ekspansiya və işğal təhdidlərinin aradan qaldırılmasına yönəlmiş olurdu.

XVIII-XIX əsrlərdə yaranmış müstəqil Azərbaycan dövlətlərinin - xanlıqların hökmdarlarının diplomatiyası da eyni dərəcədə sülhsevər xarakteri ilə seçilirdi. Onlar bu prinsipi pozurdularsa, belə hallar yalnız bir-birinə münasibətdə və yalnız bir məqsədlə - yenidən vahid mərkəzləşdirilmiş Azərbaycan dövləti yaratmaq naminə baş verirdi. Xanlıqların qonşu dövlətlərlə - Rusiya, İran ilə bağlı diplomatik addımları, onlarla sülh, mehriban qonşuluq və bərabərhüquqlu əməkdaşlıq münasibətlərinin qorunub saxlanmasına yönəlmiş olurdu.

... Lakin tale öz hökmünü verdi: Gülüstan və Türkmənçay “sülh” müqavilələri, əslində, müstəqil Azərbaycan dövlətçiliyinin əsaslarını sarsıtmış oldu...

Müstəqil Azərbaycan diplomatiyası 1918-ci ildə Azərbaycan Demokratik Respublikası (Azərbaycan Xalq Cümhuriyyəti) elan edildiyi vaxtdan yenidən dirçəlir. Onun əsas məqsədi ondan ibarət idi ki, Azərbaycan beynəlxalq hüququn subyekti, millətlərin və dövlətlərin dünya birliyinin bərabərhüquqlu üzvü olsun. 1920-ci ilin əvvəlində Versal Konfransının Ali Şurasının iclasında Azərbaycan nümayəndə heyəti respublikanın müstəqilliyinin tanınmasına nail olur və konfransda iştirak edən ölkələrin nümayəndələrini Cənubi Qafqazda sülhün qorunub saxlanmasına kömək etməyə, suveren dövlətlərin sərhədlərinin toxunulmazlığına zəmanət verməyə çağırır... 1920-ci ilin aprelində hökumətin dəyişməsi yekunda Azərbaycanda məhdud müstəqillik dövrünün bərqərar olmasına gətirib çıxardı.

Bu gün, milli müstəqilliyimizin yeni mərhələsini yaşadığımız vaxtda Azərbaycan diplomatiyasının vəzifələri, prinsip etibarilə, dəyişməmişdir. Minilliklər ərzində inkişaf prosesində dünya da, siyasət də əhəmiyyətli təkamülə məruz qalsa da, Azərbaycan, onun rəhbərləri, onun diplomatik təsisatları öz tarixinin başlanğıcında, bir neçə əsr bundan əvvəl, bu əsrin əvvəlində olduğu kimi, indi də ölkənin dövlət müstəqilliyini, ərazi bütövlüyünü, onun xalqının azad və firavan cəmiyyətdə yaşamaq hüququnu müdafiə edir. XX əsrin axırlarında

bu son dərəcə məsul tarixi missiyanın icrası Azərbaycan xalqının tanınmış lideri Heydər Əliyevin üzərinə düşmüşdür.

Heydər Əliyevin diplomatik fəaliyyəti ölkə rəhbərinin yeni tərəfdaşlar axtarışına, güclü iqtisadi və siyasi strukturlar sisteminin yaradılmasına yönəlmiş çoxşaxəli əzmkar fəaliyyət idi. Təqdim edilən məqalədə Ulu öndər axtarış və yeniliklərlə səciyyələnən diplomatik fəaliyyətinin bütün ab-havası, Onun böyük beynəlxalq forumlarda və sammitlərdə, ikitərəfli danışıqlar zamanı apardığı iş barədə dolğun təsəvvür yaratmaq çətindir. Azərbaycanın xarici siyasətinin yeni strategiya və taktikasının təkmilləşdirilməsində xarici səfərlərin əhəmiyyətli rolunu vurğulamaqla bərabər, Heydər Əliyevin xarici ölkələrin rəhbərləri - Süleyman Dəmirəl, Fransua Mitteran, Bill Klinton, Con Meycor, Roman Hersoq, Helmut Kol, Boris Yeltsin, Jak Şirak, Tszyan Tszemin, Tansu Çillər, Bənazir Bhutto, Əli Əkbər Haşimi Rəfsəncani, Əhmədxan Leqari, Eduard Şevardnadze, İslam Kərimov, Nursultan Nazarbayev, Əsgər Akayev, Saparmurat Niyazov, Butros Qali və bir sıra başqaları ilə diplomatik təmaslarında söylənilən fikirlərin dinamizmini və dərinliyini qeyd etməmək olmaz. Onun Paris, Ankara, İstanbul, Oslo, Qahirə, London, Moskva, Brüssel, Kopenhagen, Tehran, İslamabad, Pekin, Nyu-York, Lüksemburq, Aşqabad kimi paytaxtlarda keçirdiyi görüşlər və siyasi dialoqlar Azərbaycanın informasiya və iqtisadi blokadadan çıxmasını təmin etmiş, siyasi obstruksiyanı, diplomatik təcridetməni aradan qaldırmağa və dünya siyasətini formalaşdıran dövlətlərlə simmetrik ittifaqa girməyə imkan vermişdir.

Heydər Əliyevin xarici siyasi, diplomatik fəaliyyətini şərti olaraq üç dövrə bölmək olar.

Birinci dövrdə O, SSRİ-nin tərkibində olan Azərbaycanın rəhbəri kimi respublikanın birbaşa beynəlxalq əlaqələrinin əsaslarının yaradılmasına yönəlmiş ciddi təşəbbüslər edir. O illərdə müxtəlif hökumət və dövlət nümayəndə heyətləri, dünya miqyaslı böyük ictimai və siyasi xadimlər Bakıya səfərlər edirlər. Burada siyasət, iqtisadiyyat, mədəniyyət, din məsələləri üzrə regional, ümumittifaq və beynəlxalq simpoziumlar, forumlar keçirilir. Bakının dünya sivilizasiyasına, bəşəriyyətin sənaye tarixinə unikal töhfələr vermiş şəhər kimi şöhrəti özünə qayıdır.

İkinci dövr Heydər Əliyevin Kremldə işi ilə bağlıdır. O, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi superdövlətin ali rəhbərliyinin tərkibinə daxil olmuş və bir sıra mühüm beynəlxalq qərarların qəbul olunmasında fəal iştirak etmiş, dünya birliyində qüvvələrin nizamına nəzərəçarpacaq dərəcədə təsir göstərən danışıqlarda SSRİ nümayəndə heyətlərinə başçılıq etmişdir. Heydər Əliyevin tərcümeyi-halının Kreml dövrü böyük dövlət xadimləri və siyasi xadimlərlə çoxsaylı danışıqları və görüşləri, keçmiş superdövlətlə Qərb və Şərq ölkələrinin müxtəlif sahələrdə əməkdaşlığının əsasına çevrilmiş ən mühüm sənədlərin hazırlanmasını və təsdiqini əhatə edirdi. O, Hindistan, Vyetnam, Yuqoslaviya, Mozambik, Anqola, Macarıstan, Meksika və digər xarici ölkələrə bir sıra rəsmi səfərlər etmişdir. Həmin illərdə sovet mətbuatı və beynəlxalq mətbuat bu səfərləri geniş işıqlandırır, onları Kremlin beynəlxalq əlaqələrin möhkəmləndirilməsinə yönəlmiş mühüm diplomatik aksiyası adlandırırdı. Heydər Əliyev Moskvada işləyərkən Azərbaycanı unutmur, onu beynəlxalq inteqrasiya əlaqələri sisteminə daha fəal qoşmaq, eyni zamanda, xarici siyasətçilərin və biznesmenlərin diqqətini buraya cəlb etmək üçün mümkün olan hər şeyi edirdi.

Nəhayət, üçüncü dövr - Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti vəzifəsində xarici siyasət sahəsində fəaliyyətidir. Bu, Azərbaycanın beynəlxalq aləmdə tanınması, yaxın və uzaq xarici ölkələrlə ikitərəfli münasibətlərin qurulması, BMT, ATƏT, İKT (İƏT), EKO, MDB, digər beynəlxalq və regional təşkilatlarla fəal əməkdaşlıq dövrüdür. Bu - Azərbaycan xalqının və onun Ümummilli liderinin respublikanın ərazi bütövlüyü, milli dövlətçiliyin sabit gələcəyi uğrunda, beynəlxalq birlik tərəfindən qəbul edilmiş və tanınmış hüquq normalarının təntənəsi uğrunda dramatik mübarizəsi dövrüdür.

Heydər Əliyevin siyasi bioqrafiyasının yeni dövründə Onun diplomatik fəaliyyəti, mübaliğəsiz deyə bilərik ki, hərc-mərclik və dağıntı şəraitində başlanmışdır. Hakimiyyətdəki rəhbərlərin səriştəsizliyi nəticəsində baş verən daxili və xarici siyasi böhranlar silsiləsindən sonra Azərbaycan çox sürətlə uçurumun astanasına yaxınlaşırdı. Ölkənin xarici siyasəti dövlət fəaliyyətinin bu ən məsul sahəsinə parodiya şəkli almışdı. Səmimi müttəfiqlərin dəstəyini qazanmağa, möhkəm iqtisadi və siyasi ittifaqlar yaratmağa ciddi ehtiyac olduğu o dövrün diplomatik priyomları iki ifrat halla məhdudlaşdırılırdı: bir tərəfə dalaşqan, bəlkə də kobud hücumlar, digər tərəfə isə yaltaq reveranslar. Bu cür tarazlaşdırılmamış, uzağı görməyən siyasət strateji əhəmiyyətli tərəfdaşlarla münasibətlərdə ciddi çətinliklərə gətirib çıxardı.

1993-cü ilin yayında Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı dövlətçiliyin, o cümlədən, xarici siyasətin təməlinə qədər dağılmasına gətirib çıxara biləcək dəhşətli prosesləri dayandırdı. O vaxt mən Azərbaycan Respublikasının BMT-də daimi nümayəndəsi işləyirdim və respublikamızda ümumi siyasi böhranın aradan qaldırılması prosesinin ilk günlərindən orada - Nyu-Yorkda, müxtəlif ölkələrdən olan diplomatların əhatəsində biz gənc respublikanın xarici siyasi və diplomatik fəaliyyətində baş verən dəyişikliklərin səmərəliliyinə əmin olur, rəhbərliyin gücünü, iradəsini və peşəkarlığını təcrübədə hiss edirdik. Beynəlxalq

siyasətin episentrində - dünya problemlərinin, o cümlədən, müasir dövrün ən sürəkli və qanlı münaqişələrindən biri olan Ermənistan-Azərbaycan münaqişəsinin taleyi həll edilən məkanda əlaqədar ölkələrin səfirləri, BMT-nin yüksəkvəzifəli məmurları şahid olurdular ki, Azərbaycan liderinin peşəkarlığı Azərbaycanın imicini neqativlikdən necə sürətlə - günbəgün, saatbasaat xilas edir, yeniliyin dinamizmi köhnəliyin ətalətini üstələyir. Bütün bunlar ən yüksək dərəcəli beynəlxalq siyasətçilərin və diplomatların nəzərində Azərbaycanın siyasi obrazını heyrətamiz dərəcədə yeni şəkildə ifadə edirdi. 1993-cü ildə, Azərbaycan xalqı, nəhayət, öz gələcəyinə, öz taleyinə layiqli Prezident seçəndən sonra Azərbaycanın dövlətlər arasında yeni münasibətlər sisteminə sivil şəkildə daxil olması prosesi başlanır. Azərbaycan dünyaya açılır. Ənənəvi əlaqələr bərpa edilir, yeni əlaqələr yaradılır, ziddiyyətlər kələfi səbirlə açılır. Müstəqil Azərbaycanın yeni rəhbəri tərəfindən həyata keçirilən sülhsevər xarici siyasət kursu, Azərbaycan diplomatiyasının blokların və ittifaqların çoxvariantlılığına oriyentasiyası, onun yeni və ənənəvi tərəfdaşlar arasında münasibətləri tənzimləmək səyləri beynəlxalq aləmdə geniş miqyasda tanınır, dinamik şəkildə ardıcıllıq, sistemlilik və məntiqi tamlıq kəsb edirdi.

Mən Heydər Əliyevi xarici ölkələrə çoxsaylı səfərlərdə müşayiət etmişəm və xarici siyasət aksiyalarında uğurun necə qazanıldığını bilirəm. Prezidentlə ünsiyyətdə olarkən Onun sözlərinin əhəmiyyətini və sanbalını xüsusilə kəskin hiss edirəm, Prezidentin sözləri Onun tərəfdaşlarında öz söz və fikirləri üçün məsuliyyət hissi daşımağa ehtiyac doğurur. Prezident, özünü və bütün komandasını ən ciddi intizama tabe edərək, hər çıxışa, hər görüşə, hər dialoqa diqqətlə hazırlaşır. Bu genişmiqyaslı işin nə qədər fiziki və mənəvi qüvvə tələb etdiyini, Prezidentin yuxusuz gecələrinin necə sürətlə, bitib-tükənməz işlər və fikirlərlə dolu keçdiyini, sənədlərin mətnlərinin dəfələrlə redaktə edildiyini, protokol detallarının uzun-uzadı müzakirə olunduğunu bilirəm... Bunlar hamısı bir gün əvvəl olur, ertəsi gün isə hökmən parlaq nəticə əldə edilir: Azərbaycan üçün daha bir mühüm məqsədə nail olunur, onun növbəti marağı irəli çəkir... Qeyri-adi şəxsiyyətlərin belə bir xüsusiyyəti var: onlar möhtəşəm işlər görəndə başqalarından daha çox yorulduqlarını göstərmirlər, onlar dövlət qayğılarının və problemlərinin çox ağır yükünü yenidən öz üzərinə götürməyə hazırdırlar. Biz bunu elə-belə də olmalı imiş kimi, aydın olan bir məsələ kimi qəbul etməyə öyrəşmişik və onu nə isə adi bir hal kimi qəbul edərək bəzən fenomenə heç təəccüblənmirik.

İstər ikitərəfli danışıqların gedişində, istərsə də beynəlxalq forumlarda iştirak edərkən Onun əsas məqsədi - dünya ictimaiyyətinin, dövlətlərin liderlərinin, nüfuzlu təşkilatların rəhbərlərinin diqqətini Azərbaycana, özü də təkcə onun erməni təcavüzü və qaçqınlar ordusunun mövcudluğu ilə bağlı problemlərinə və bəlalarına deyil, həm də böyük iqtisadi potensialına, xüsusən, tükənməz xammal, energetika resurslarına, intellektual, nəhayət, siyasi potensialına cəlb etməkdir.

Süleyman Dəmirəl ilə söhbətdə O, respublikanın dirçəlişi və inkişafı məqsədi ilə əməkdaşlığın optimal modelini axtarır; Boris Yeltsinlə söhbətlərdə O, yorulmadan erməni-Azərbaycan münaqişəsinin nizama salmasında Rusiyanın vasitəçilik missiyasının aktivləşmə problemlərini həll edir; Bill Klintonu çox böyük diplomatik taktla inandırır ki, Amerikanın Azərbaycana köməyinin miqyasının genişləndirilməsi burada dünyəvi demokratik cəmiyyətin bərqərar olması üçün zəruridir; müxtəlif vaxtlarda Yelisey sarayının sahibləri Fransua Mitteran və Jak Şırakla görüşərək “Yeni Avropa” üçün siyasi yol açan ölkə ilə əməkdaşlığın möhkəm təməlini yaradır; Səudiyyə Ərəbistanının kralı Fəhd Al-Səudun qəbulunda O, gənc müstəqil müsəlman dövlətləri ilə inkişaf etmiş, həm ənənəvi mənəvi dəyərləri qoruyub saxlamış, həm də müasir texnologiyalara yiyələnmiş islam ölkələri arasında daha sıx əməkdaşlığın zəruriliyi haqqında danışır; Helmut Kol ilə uzun sürən söhbətin mövzusu - Azərbaycanda islahatları intensivləşdirmək və onun dünya bazarına daxil olmasını asanlaşdırmaq məsələləridir; Con Meycerə deyir ki, Azərbaycanın dəniz neftinə sərmayə qoymaqda cəsarətli olun, sabah o, dünyanın qarşısında güclü, inkişaf edən, özünün bütün tərəfdaşları üçün energetika problemlərinin həllini təmin etməyə qabil olan bir dövlət kimi dayanacaqdır; Eduard Şevardnadze ilə birlikdə Tbilisi bəyannaməsini imzalamaqla, Qafqaz evində sülhün öz siyasi fəaliyyətinin mühüm prioritetlərindən biri olmasını təsdiq edir; Rəfsəncani ilə söhbətdə İranla mehriban münasibətləri yüksək qiymətləndirir və daha fəal əməkdaşlığa çağırır; Bənazir Bhutto və Əhmədxan Leqari ilə görüşlərdə iri regional sənaye, ticarət və nəqliyyat strukturlarının yaradılması haqqında öz ideyalarını bölüşür; İon İliyesku və Jelyu Jelev ilə Balkanlarda və Qafqazda gərginlik mənbələrinin aradan qaldırılması yollarında oxşar və fərqli problemləri müzakirə edirdi...

Beynəlxalq forumlarda Onun iştirakının mövzuları həqiqətən tükənməz idi! O, BMT Baş Məclisinin 49-cu və 50-ci sessiyalarında çıxış edərək Azərbaycanın siyasi nüfuzunu möhkəmlədir; Brüsseldə NATO-nun mənzil-qərargahında “Sülh naminə tərəfdaşlıq” çərçivə sənədini imzalayaraq Cənubi Qafqazda münaqişələrin nizama salınması üçün əlavə beynəlxalq zəmanətlərə nail olur; Kopenhagendə beynəlxalq konfransda O, Azərbaycan qaçqınlarının olduqca ağır vəziyyəti haqqında danışır və dünyanın bütün ölkələrinin mülki əhalisinin qarşılıqlı sosial müdafiəsi sistemini yaratmağı təklif edir; Budapeşt sammitində ATƏT-in ən fəal islahatçılarından biri kimi çıxış edir; Kasablankada sammitdə İslam Konfransı Təşkilatının (indiki İslam Əməkdaşlıq Təşkilatının)

Ermənistanı təcavüzkar kimi tanımasına nail olur; NATO-nun baş katibi Havyer Solana ilə onun dialoqlarının mövzusu - Azərbaycanın ərazi bütövlüyünün bərpasına, işğal edilmiş ərazilərin azad olmasına kömək məsələləridir; BMT-nin baş katibi Butros Qali və Avropa İttifaqının İqtisadi Komissiyasının sədri Jak Santer ilə qaçqınlar probleminin həlli, humanitar yardımın həcminin artırılması yollarını götür-qoy edir; Davos beynəlxalq iqtisadi forumunda dünyada yeni iqtisadi standartlar işlənib hazırlanmasının zəruriliyi ideyasını irəli sürür; Buxarestdə, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının sammitində "Qərb-Şərq" nəqliyyat dəhlizi üzrə əməkdaşlıq konsepsiyası ilə çıxış edir; Parisdə UNESCO-nun qərargahında Azərbaycan xalqının qədim mədəniyyəti və yüksək mənəviyyatı haqqında ilhamla danışır; Lüksemburqda, Avropa İttifaqı ilə tərəfdaşlıq və ikitərəfli əməkdaşlıq haqqında saziş imzalayaraq, Azərbaycanın Avropaya qoşulma vektorunu göstərir; Londonda və Parisdə, Nyu-Yorkda və Kölndə iri biznesmenlər və nüfuzlu alimlər qarşısında çıxış edərək Azərbaycana investisiya pəncərələrini taybatay açırdı.

Ulu öndər Heydər Əliyevin fəaliyyətini şəxsən müşahidə etməyim Onun diplomatiyasının əsas keyfiyyətləri və üslubu haqqında müəyyən nəticələr çıxarmağa imkan verir.

Diplomatiyada O, həmişə açıqlıq prinsipinə tərəfdardır və diplomatik eyhamların köməyinə ehtiyac duymur. Onun ikitərəfli və çoxtərəfli danışıqları Azərbaycan haqqında genişhəcmli obyektiv informasiya tutumuna malikdir. O, həmsöhbətindən heç nəyi gizlətmir, öz səmimiyyəti ilə adekvat reaksiya təklif edir. Tərəfdaşlar da anlayırlar ki, onların qarşısındakı - müstəqilliyə nail olmuş, qanlı müharibəyə cəlb edilmiş və dəyişməkdə olan dünyaya ümidlə, şərəflə və ləyaqətlə gedən ölkənin Prezidentidir. Bu gün cəsarətlə demək olar ki, Azərbaycanın ətrafında informasiya blokadası məhz Onun "açıq" diplomatiyası sayəsində dağılmışdır.

Diplomat kimi Heydər Əliyevə xas olan daha bir mühüm keyfiyyət - zəngin həyat təcrübəsi nəticəsində dövlət əhəmiyyətli minlərlə işi canına hopdurmuş, saflaşdırılmış peşəkarlıqdır, lakin bu peşəkarlığın əsasını daşlaşmış ehkamlar təşkil etmir, bu, yeni ideyalar və fikirlər üçün münbit mühit, yeni layihələrin və modellərin sınaqdan keçirildiyi "daxili laboratoriya"dır.

Heydər Əliyevin diplomatiyası genişmiqyaslıdır. Bu, ötəri, konyunktur maraqlara xidmət etməyən, gələcəyə, uzunmüddətli perspektivə yönəlmiş diplomatiyadır. O, xarici siyasətin taktikasını və strategiyasını qurarkən dünyanın "çoxqütblü" və eyni zamanda, qarşılıqlı asılı olmasını əsas götürür, Onun diplomatik fəaliyyətinin çoxfunksionallığı da buradan irəli gəlir. Bu diplomatiyanın "böyük stixiyası" siyasi və iqtisadi tərəfdaşlıq, mədəni və hərbi sahələrdə əməkdaşlıq, humanitar kömək və sair problemlərin böyük dairəsini əhatə edir. O, əməkdaşlığın hüdudları çevrəsini cızarkən, qlobal məsələlərin, universal xarakteri ilə fərqlənən artım problemlərinin bütöv kompleksinin birgə həllini nəzərdə tutan cəsarətli, möhtəşəm niyyətləri ilə həmsöhbətlərini heyrətləndirir və eyni zamanda, konkret layihələrin məqsədəuyğunluğu ilə tərəfdaşlarını maraqlandırır.

Heydər Əliyev diplomatiyasının əsas elementlərindən biri də ən mürəkkəb, daxili dramatizmi aşkar sezilən danışıqlar zamanı Onun vəziyyəti idarə etmək bacarığıdır. Danışıqların ab-havasında yaranmış gərginliyi "boşaltmaq" üçün Onun istifadə etdiyi diplomatik vasitələrin arsenalı həqiqətən tükənməzdir. Bu vasitələr gərginliyi və etimadsızlığı aradan qaldırmağa, qarşılıqlı anlaşma aurası yaratmağa imkan verir, nəticədə dialoq prosesində elə məqamlar yaranır ki, ən dolaşıq problemlərin mənası qəflətən aydınlaşır, auditoriya respublikamıza, onun problemlərinə böyük maraq göstərməyə "təhrik edilir". O, xüsusi cazibə qüvvəsi ilə həmsöhbətini cəlb etmək, mövzunu gözlənilmədən dəyişərək auditoriyanın diqqət mərkəzində qalmaq bacarığı ilə fərqlənir. Nəhayət, Onun özünü sərbəst aparmaq, yerində işlədilmiş şux bir zarafatla, hazırcavablıqla rəsmi qəbullara və görüşlərə xas olan soyuq rəsmiyyətçilik ab-havasını dəyişmək bacarığını da qeyd etməmək olmaz.

Mən Heydər Əliyevin çıxışlarına böyük auditoriyaların canlı reaksiyasının da, Qərb və Şərq ölkələrinin ən nüfuzlu liderləri tərəfindən Ona böyük ehtiramın təzahürü olan münasibətin də şahidi olmuşam. Birbaşa dialoq vaxtı bu liderlər Ona heyran olduqlarını gizlətmədən Onun misilsiz siyasi təcrübəsi, islahatçılıq fəaliyyətinin miqyası haqqında danışır və hökmən vurğulayırlar ki, O, sözsüz, beynəlxalqmiqyaslı xadimlər sırasında ən nüfuzlu liderlərdən biridir.

Mənim həmkarlarım, müxtəlif ölkələrin xarici işlər nazirləri Ulu öndər Heydər Əliyevin səmərəli diplomatik fəaliyyətindən aldıqları təəssüratı eyni dərəcədə heyranlıqla mənimlə bölüşürlər.

Onlar, Azərbaycan liderinin diplomatik məktəbinin gücünü dərk etməyə çalışaraq, mənimlə söhbətlər zamanı Onun peşəkar siyasətçi, polad iradəyə, güclü intellektə, dərin erudisiyaya, natiqlik istedadına malik lider keyfiyyətlərinə tez-tez diqqəti cəlb edirlər. Bir sözlə, onlar xarizmatik liderin portretini çəkirlər. Mən də bu portretin obyektiv olması fikri ilə razılaşaraq, vurğulayıram ki, əgər Prezidentə xas olan dərin humanizmdən və yüksək intellektdən xəbər verən cizgilər bura əlavə edilməsə, bu portret natamam olar. Ona məhz bu cür, insanlıq nöqteyi-nəzərindən baxış Onun şəxsiyyətini, xarakterini dünyamiqyaslı lider, dövlət xadimi

keyfiyyətləri ilə insan qəlbinin ən incə hisslərini duyan, ünsiyyət üçün açıq, başqasını anlamağa hazır olan, hər cəhətdən ahəngdar insani keyfiyyətləri özündə heyrətamiz dəqiqliklə birləşdirən aspektdə açıqlayır.

Biz konstruktivlik, yaradıcılıq gücü, prinsipiallıq, dost dövlətlərin ittifaqları, ali məramlar, sülh və tərəfdaşlıq ideallarına sədaqət kimi keyfiyyətləri ilə seçilən xarici siyasət kursumuzun reallığa doğru irəliləyişinə görə məhz Ona, böyük siyasətin strateqinə borcluyuq.

Mən və müasirlərim əminik ki, biz Heydər Əliyevin fəaliyyəti, çoxşaxəli xarakteri haqqında hər şeyi bilirik, amma bununla belə, Onun fəaliyyətinin zaman və məkan əhatəsi o qədər genişmiqyaslı, şəxsiyyəti o qədər qeyri-adidir ki, bu insanın böyüklüyünü, möhtəşəmliyini bütün tamlığı ilə yalnız gələcək göstərəcəkdir. Bu şəxsiyyətin yaradıcı işinə qədirbilən yeni nəsillərin verəcəyi qiymət ona getdikcə daha artıq dərəcədə heyranlığın ifadəsi olacaqdır.

Həqiqətən də, böyüklük uzaqdan daha aşkar görünür!

**“Yeni Azərbaycan”.-**2013.-19 aprel.-N 68.-S.6.

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN TARİXİNDƏ LİDERLİK MİSSİYASI

**İradə HÜSEYNOVA,**
Bakı Dövlət Universitetinin "Qafqaz xalqları tarixi"
kafedrasının müdiri, tarix elmləri doktoru, professor,
Erməni Araşdırmaları laborotariyasının rəhbəri,
Azərbaycan Respublikasının Əməkdar müəllimi,
YAP Siyasi Şurasının üzvü, Elm, təhsil və innovasiyaların inkişafında xidmətlərinə görə
Beynəlxalq "Sokrat" mükafatı laureatı

**Cəmiyyəti, xalqı, hətta kiçik bir qrupu ədalətlə idarə edə bilmək, həlledici çoxluğu razı salmaq, onları konkret amallar uğrunda səfərbər etmək əsl siyasi peşəkarlıq və liderlik məharətidir. Bu mənada, böyük siyasi lider daim öz cəsarəti, çevik və rasional qərarları, ən çətin situasiyalarda optimal çıxış yolu tapmaq məharəti ilə seçilən parlaq şəxsiyyətdir. O, yalnız enerjisi və natiqlik məharəti ilə deyil, həm də çevrəsində olan insanların tələbat və ehtiyaclarını ifadə etmək bacarığı ilə fərqlənir, cəmiyyətdə ayrı-seçkiliyə yol vermir, daim haqq-ədalətə tapınır.**

**Zamanın nəbzini tutmağı, hadisələrə real qiymət verməyi bacaran, siyasi potensialını düzgün dəyərləndirə bilən liderlər əksərən cəmiyyətdəki siyasi prosesləri istiqamətləndirməyə nail olur, milli inkişafın əsasına çevrilən cəlbedici proqram və konsepsiyaların müəllifinə çevrilirlər. XX əsrdə xalqımızın yetirdiyi ən böyük şəxsiyyət, dünya şöhrətli siyasi xadim Heydər Əliyev də belə fenomenal dühalardan olaraq özünün təkmil dövlətçilik konsepsiyasında ədalət, müdriklik və həqiqət kimi üç ali dəyəri bir araya gətirərək çağdaş tariximizdə əbədiyaşarlığını təmin etmiş, gücün siyasətinə qarşı çıxaraq, siyasətin gücünü qoymuşdur.**

**Böyük siyasi liderlər üçün səciyyəvi cəhətlərdən biri də siyasi intuisiya və uzaqgörənlik, hadisələrin gedişinə təsir göstərmək və ya onu qabaqlamaq bacarığıdır. Tarixən bir çox nüfuzlu liderlərin siyasətdə qarşıya qoyduğu məqsədlərə yetişərək uğur qazanması, rəhbərlik etdiyi kütləni, xalqı böyük fəlakət və faciələrdən hifz etməsi məhz iti fəhm, intuisiya və uzaqgörənliyin nəticəsi olmuşdur. Azərbaycan xalqının Ümummilli lideri də məhz belə uzaqgörən, siyasi proseslərin inkişaf trayektoriyasını duyan, çoxgedişli kombinasiyalar qurmağı bacaran, hadisələrə pozitiv təsir göstərən fenomenal şəxsiyyət idi! Heydər Əliyev məhz millətinin gələcəyini düşünən lider olaraq bütün şüurlu həyatını canından artıq sevdiyi Azərbaycanın tərəqqisinə, inkişafına həsr etmişdir.**

Hər bir xalq taleyində müstəsna rol oynamış böyük şəxsiyyətlərin xatirəsini uca tutur, onların adının əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atır. İctimai rəyi nəzərə alan Prezident İlham Əliyevin 2004-cü il 10 mart tarixdə imzaladığı "Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" Fərmanla Ulu öndərin xatirəsinin əbədiləşdirilməsi istiqamətində bir sıra mühüm addımlar atılmışdır. Fərmanla Heydər Əliyev Mükafatı və ordeni təsis edilmiş, Bakı və Naxçıvan şəhərlərində "Heydər Əliyev" xatirə memorial kompleksləri yaradılmış, Azərbaycan Ali Hərbi Məktəbinə, Bakı Beynəlxalq Aeroportuna, Bakı Dərin Özüllər Zavoduna, Bakı-Tbilisi-Ceyhan ixrac boru neft kəmərinə, "Lider" qazma qurğusuna, Respublika sarayına, Bakı şəhərindəki İdman-Konsert Kompleksinə, habelə paxtaxtın ən böyük küçə və meydanlarından birinə Ulu öndər Heydər Əliyevin adı verilmişdir ("Azərbaycan" qəzeti, 2004-cü il 11 mart. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 mart tarixli "Azərbaycan xalqının Ümummilli lideri Heydər
Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" Fərmanı).

Fərmanda yer almış mühüm müddəalardan biri də ictimai əsaslarla fəaliyyət göstərən Heydər Əliyev Fondunun yaradılmasının dəstəklənməsi olmuşdur. Fond, ilk növbədə, Ümummilli liderin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi siyasi kursun öyrənilməsi və təbliği, habelə bu ideyaların reallaşdırılması niyyəti ilə yaradılmışdır. Bununla yanaşı, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım göstərilməsi, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, respublikanın və xarici ölkələrin təhsil müəssisələri ilə qarşılıqlı-faydalı əməkdaşlıq münasibətlərinin genişləndirilməsi, elmi tədqiqatların aparılmasına yardım göstərilməsi, ölkənin yaradıcı və elmi potensialının artırılması kimi məqsədlər də 9 illik fəaliyyətində prioritet istiqamətlər olmuşdur.

Prezident İlham Əliyevin 2006-cı il 29 dekabr tarixli "Heydər Əliyev Mərkəzinin yaradılması haqqında" Sərəncamı ilə paytaxtın mərkəzində müasir memarlığın ən qabarıq cizgilərini özündə təcəssüm etdirən Heydər

Əliyev Mərkəzi inşa olunmuş, habelə mərkəzin strukturu və fəaliyyəti təmin edilmişdir. Bütün bunların davamı kimi dövlət başçısının 2013-cü il yanvarın 21-də imzaladığı "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" növbəti Sərəncamla bir sıra yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulur. Sərəncamda deyilir: "**Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir**".

Sərəncamda göstərildiyi kimi, Ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında ən böyük xidmətlərindən biri Azərbaycanı real müstəqilliyə qovuşdurması, dövlətçiliyin qorunub saxlanılması, milli inkişaf yolunun düzgün müəyyənləşdirilməsidir. Tarix boyu Azərbaycanda milli dövlət quran böyük sərkərdələrin, liderlərin, şəxsiyyətlərin sayı kifayət qədər olsa da, etiraf etmək lazımdır ki, onların heç biri yaratdıqları dövləti sonadək qoruyub saxlamağa, onun müstəqilliyinin əbədiliyini təmin etməyə nail olmamışlar. Bu mənada, böyük strateq Heydər Əliyevin milli tariximizdəki rolunun və yerinin müstəsnalığını siyasi baxışlarından asılı olmayaraq, hər kəs etiraf etməyə məhkumdur. Ümummilli lider bununla yanaşı, həm də Azərbaycanın gələcək müstəqilliyi üçün hələ ötən əsrin 70-ci illərindən başlayaraq iqtisadi, siyasi, mədəni zəmin yaratmış rəhbər kimi müasir tariximizdə ədədiyaşarlığını təmin etmişdir.

1969-1982-ci illərdə Azərbaycana inamla rəhbərlik etmiş Heydər Əliyevin böyük uzaqgörənliklə formalaşdırdığı sənaye və istehsal potensialı bu günün özündə də davamlı iqtisadi yüksəliş üçün möhkəm özülə, bünövrəyə çevrilmişdir. O dövrdə keçmiş SSRİ-nin ən geridə qalmış respublikalarından biri kimi tanınan, iqtisadi, mənəvi-ideoloji böhran keçirən Azərbaycan sanki taleyin ümidinə buraxılmış kimi görünürdü. Böyük strateqin respublikanın ağır iqtisadi, siyasi, mənəvi böhran keçirdiyi belə bir dövrdə - 1969-cu ilin 14 iyulunda Azərbaycan KP MK-nın birinci katibi seçilməsi isə respublikanı işıqlı gələcəyə doğru aparan yolun başlanğıcına çevrilmişdir. Yeni rəhbərin ilk gündən ədalətə, qanunçuluğa tapınaraq respublikada əliəyriliyə, rüşvətxorluğa, dövlət əmlakının mənimsənilməsi hallarına qarşı kəskin mübarizəyə qalxması, paralel olaraq yüksək yenilikçiliyi, təşəbbüskarlığı, islahatlara meyilliliyi respublika ictimaiyyətində nikbinliyi, sabaha inamı artırmışdır (Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: 2004).

Məhz bu mərhələdən etibarən respublikamızda gerçəkləşdirilən çoxşaxəli islahatlar müsbətə doğru radikal dəyişikliklərə təkan vermiş, qısa müddətdə iqtisadi sahədə mühüm nailiyyətlər əldə olunmuş, mədəniyyətin yüksəlişi, milli-mənəvi dəyərlərin dirçəlişi istiqamətində mühüm addımlar atılmışdır. Həmin illərdə Heydər Əliyev məhz milli özünüdərkin güclənməsinə zəmin yaradan iqtisadi inkişaf strategiyası həyata keçirməyə çalışmışdır. Keçmiş Sovet İttifaqı kimi böyük dövlətin zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək respublikanı tərəqqi yoluna çıxaran Ümummilli lider Heydər Əliyev yeni və mütərəqqi sənaye sahələrinin yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirmişdir. Sənayenin inkişaf səviyyəsinə görə respublikanın bütün bölgələrinin proporsional inkişafı yönümündə ardıcıl addımlar atılmış, istehsalla bilavasitə bağlı elmi-tədqiqat sahələrinin inkişafı üçün kompleks tədbirlər görülmüşdür. Elmi-texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalatda tətbiqi Azərbaycanın bütün ittifaqda qabaqcıl mövqelərə çıxmasına, ölkənin sosial-iqtisadi həyatında yüksəlişə rəvac vermişdir.

Ümumilikdə, 1970-1982-ci illərdə Heydər Əliyevin təşəbbüsü və ciddi səyləri nəticəsində Azərbaycanda onlarla zavod, fabrik, istehsalat sahələri yaradılmış, 250-dən artıq sənaye müəssisəsi fəaliyyətə başlamışdır. Azərbaycan bir sıra istehsal sahələrinə görə Sovet İttifaqında aparıcı yer tutur, burada istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac edilirdi. Həmin illərdə istehsal olunan sənaye məhsullarının ümumi həcmi respublikanın əvvəlki 50 ildəki istehsal həcminə bərabər idi.

Həmin illərdə iqtisadi sahədə həyata keçirilən islahatlar və əldə olunan uğurlar paralel olaraq milli-mənəvi yüksəlişə də ciddi təkan vermişdir. Ümumiyyətlə, həmin dövrdə böyük strateq Heydər Əliyevin respublikaya rəhbərliyinin bütün fəlsəfəsi yalnız xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanışı məramına hesablanmışdı. İdarəçilikdə digər bütün addımlar, o cümlədən, iqtisadi inkişafın sürətli strategiyasının həyata keçirilməsi milli şüurun yüksəlməsinə təkan verməli, milli dirçəlişin etibarlı təməlinə çevrilməli idi. Bu məqsədə yetişmək üçün Heydər Əliyev azərbaycançılıq məfkurəsinin rejimin ideoloji repressiya maşını ilə boğulmasına nəinki imkan verməmiş, eyni zamanda, milli məfkurə və düşüncə sahibi olan ziyalıları qorumuş, nəticədə respublikada dissident yazarlar olmamışdır. Vaxtı ilə azərbaycançılıq məfkurəsini əsərlərində təbliğ etdiklərinə görə şovinizmdə, millətçilikdə günahlandırılan, təqiblərə məruz qalan Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Anar, Ziya Bünyadov kimi şəxsiyyətləri ən çətin məqamlarda qoruyan Heydər Əliyev bütün ruhu ilə

milli kökə bağlı şəxsiyyət olduğunu bir daha sübuta yetirmişdir (Azərbaycan tarixi. I-VII cildlər. AMEA A.Bakıxanov adına Tarix İnstitutu. Bakı: Elm, 2008).

Azərbaycan xalqının milli düşüncəsi, adət-ənənələri, ümumən azərbaycançılıq ideologiyasının mühüm komponentləri daha çox qədim yazılı abidə olan "Kitabi-Dədə Qorqud"da əksini tapdığından, Sovet ideologiyası ötən əsrin 20-50-ci illərində dastanın öyrənilməsini qadağan etmiş, uzun illər bu abidənin unutdurulmasına çalışmışdı. Ulu öndər bu qadağanı da tamamilə aradan götürərək dastanın araşdırılması və tədqiqinə normal şərait yaratmışdır. "Azərbaycan əbədiyyatı çoxəsrlik tarixi "Kitabi-Dədə Qoqud kimi ədəbi abidələrlə, Nizaminin nəhəng yaradıcılığı ilə, Xaqaninin və Nəsiminin, Füzulinin və Vaqifin, söz sənəti bahadırlarının dahiyanə əsərləri ilə, aşıq poeziyasının həmişə canlı nümunələri ilə zəngindir" - deyən Heydər Əliyevin göstərişi əsasında "Kitabi-Dədə Qorqud" eposu ilə bağlı tarixi və ədəbi araşdırmaların sayı çoxalmış, hətta mövzuda sanballı bədii film çəkilmişdir.

Xalqın milli düşüncə sisteminin bədii-poetik modeli olan Azərbaycan folklorunun inkişafı istiqamətində həyata keçirdiyi addımlar da Ulu öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərə həssas münasibətindən irəli gəlməklə milli özünüdərkə, ictimai şüurun oyanışına xidmət etmişdir. Heydər Əliyev xalqın istiqlal düşüncələrinin, azadlıq ideyalarının lirik-emosional təcəssümü olan aşıq poeziyasının və musiqisinin dirçəldilməsinə də xüsusi diqqət yetirmişdir. 1972-ci ildə Azərbaycan aşıq sənətinin görkəmli nümayəndələrindən olan Aşıq Ələsgərin 150 illik yubileyinin həm aşığın doğulduğu Göyçə mahalında, həm Bakıda, həm də Moskvada ən yüksək səviyyədə keçirilməsi bunu bir daha təsdiqləyir. Belə bir möhtəşəm yubileyin keçirilməsində məqsəd el sənətkarını xalqa qaytarmaqla yanaşı, həm də tarixən Azərbaycanın real sərhədlərinin necə olduğunu, ulu babalarımızın Ermənistan adlanan ərazidə əzəldən yaşadığı fikrini Sovet cəmiyyətinə çatdırmaq idi.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü əsasında Azərbaycan KP MK Bürosunun 1972-ci il 7 dekabr tarixli iclasında Aşıq Şəmkirin anadan olmasının 80 illik yubileyinin keçirilməsi, adının ədəbiləşdirilməsi haqqında qərar qəbul edilmişdir. 1981-ci il iyul ayının 21-də isə MK bürosunun iclas qərarı ilə ustad aşığın anadan olmasının 180 illiyinin qeyd edilməsi barədə qərar qəbul olunmuş, mədəniyyət saraylarına, klublara, küçələrə onun adı verilmişdir.

1972-ci ildə, həmçinin, respublika rəhbəri görkəmli klassik şair İmaməddin Nəsiminin anadan olmasının 600 illiyinə dair hazırlıqla bağlı qərarın qəbuluna nail olmuş, bir il sonra görkəmli klassikin şanlı yubileyi Bakıda və Moskvada təntənə ilə qeyd edilmişdir. 1972-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının 50 illik yubileyi keçirilmiş, görkəmli bəstəkar Üzeyir Hacıbəyovun 90 illik yubileyi də Bakıda və Moskvada yüksək səviyyədə qeyd edilmiş, həmçinin, xalqın qəhrəmanlıq epopeyasını əks etdirən "Koroğlu" dastanı yenidən tamaşaya qoyulmuşdur.

Ulu öndər Heydər Əliyev sağlığında milli təmayüllü kommunist kimi müxtəlif təqiblərə, təzyiqlərə məruz qalan, ölümündən sonra isə unutdurulmağa çalışılan görkəmli ictimai-siyasi xadim Nəriman Nərimanovun 100 illik yubileyini qeyd etmək, onun heykəlini ucaltmaq üçün Sovet imperiyasının rəhbərliyi ilə danışıqlara iki il vaxt sərf etmişdir. Nəticədə Azərbaycan KP MK bürosunun 1972-ci il 24 may tarixli iclasında Nəriman Nərimanovun Bakı şəhərində heykəlinin ucaldılması barədə qərar qəbul etmişdir. Ulu öndər, eyni zamanda, görkəmli ədibin 1977-ci ildə Rusiyanın Ulyansk şəhərində əzəmətli abidəsinin ucaldılmasını təmin etmişdir. Bu addımları ilə Heydər Əliyev, əslində, Nəriman Nərimanova görkəmli dövlət xadimi kimi bəraət verir, onun təbliğinə, tanıdılmasına çalışırdı (İ.Quseynova "Qeydar Aliev ot politiçeskoqo rukovoditelə k obhenaüionalğnomu lideru" Baku, 2005).

Ədəbi irsə qayğı sahəsində fəaliyyətini genişləndirən Ulu öndər Heydər Əliyev böyük Azərbaycan şairi Məhəmməd Füzulinin qəbrinin İraqdan Azərbaycana köçürülməsi, məqbərəsinin inşası imkanlarını öyrənmək üçün xüsusi komissiya yaratmışdır. Bu istiqamətdə göstərilən davamlı səylər o zaman İraq dövlətinin əngəlləri üzündən nəticə verməsə də, Ulu öndər respublika daxilində dahi şairin yaradıcılığının geniş tədqiqinə, öyrənilməsinə xüsusi qayğı göstərmişdir.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı əvəzsiz xidmətlərindən biri də məhz ana dilinə həssas münasibət olmuşdur. Xalqın milli-mənəvi dəyərlərinin yaşadılması və inkişaf etdirilməsində ana dilinin müstəsna rol oynadığını başa düşən, onu bilməyənləri şikəst sayan müdrik rəhbərin bu məsələyə münasibəti daim həssas olmuşdur. Ulu öndər Sovet Azərbaycanında hakimiyyətə gəlişindən dərhal sonra Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyinin keçirilməsinə qərar vermiş, 1969-cu il noyabrın 1-də bu təntənəli tədbirdə totalitar sovet rejiminin tətbiq etdiyi bütün baryerləri aşaraq Azərbaycan dilində çıxış etmişdir. Bununla da Heydər Əliyev dühası cəmiyyətə milliləşmə zəruriliyi mesajını vermiş, milli dilə, dinə, dəyərlərə bağlı olmağı, tarixi irsi yaşatmağı ictimai fikrə böyük müdrikliklə təlqin etmişdir. 70-ci illərin ortalarında Azərbaycan dilinin tədqiq və öyrənilməsi istiqamətində dövlət səviyyəsində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

1974-cü ildə Azərbaycan dilinin tədqiqinə görə bir qrup dilçi alimin, o cümlədən, 3 cildlik "Müasir Azərbaycan dili" dərsliyinin çapı da Ulu öndərin ana dilinə böyük ehtiramla yanaşdığını göstərir. Həmin illərdə Azərbaycan Elmlər Akademiyasının Dilçilik İnstitutunun yaradılması da ana dilinin ictimai-siyasi nüfuzunun möhkəmləndirilməsi, dilinin tarixinə, dialektologiyaya dair bir çox tədqiqatların meydana çıxmasını şərtləndirmişdir (İ.Hüseynova. "Dövlətçilik naminə", Bakı, 2001).

Ümumiyyətlə, həmin dövrdə humanitar elm sahələrində böyük irəliləyişlər əldə edilmiş, Azərbaycan dilinin, tarixinin, folklorunun, fəlsəfi fikrinin, incəsənətinin tədqiqi sahəsində uğurlu nəticələr qazanılmışdır. Sovet rejiminin sərt qanunlarına baxmayaraq, respublikamızda böyük iqtisadi, elmi və ədəbi-mədəni potensialın yaradılması bu uzaqgörən siyasətin nəticəsi olmuş, xalqın azadlıq idealları, XX əsrin əvvəllərindəki azərbaycançılıq, dövlətçilik dəyərləri ictimai şüurda geniş meydan tapmışdır. Milli-mənəvi şüura qayıdış çağdaş milli varlığın təsdiqi kimi reallaşmış, zəruri tarixi-mənəvi prosesə çevrilmişdir. 80-ci illərin sonunda Azərbaycan xalqının milli "Mən"ini qorumaq üçün ayağa qalxıb ermənilərin ərazi iddialarına sərt reaksiya verməsi, ölkədə milli-azadlıq hərəkatının genişlənməsi də əsası məhz 70-ci illərdə qoyulmuş möhkəm ideoloji-siyasi təmələ əsaslanmışdır.

Ümummilli lider 1982-ci ildən sonra - SSRİ-ni idarə edən aparıcı simalardan biri kimi Kremldə çalışdığı dövrlərdə də Azərbaycanın gələcək müstəqilliyinə xidmət edən bir sıra addımlar atmış, respublikamıza qarşı ayrı-seçkilik siyasətinə qarşı çıxmış, ermənilərin məkrli torpaq ilhaqı siyasətinə qarşı barışmaz mövqe tutmuş, Qorbaçov rejimini kəskin tənqid etmişdir. Məhz bu qətiyyətli və prinsipial mövqeyinə görə 1987-ci ildə SSRİ KP MK-nın Siyasi Bürosunun üzvlüyündən uzaqlaşdırılan Ulu öndər Heydər Əliyev sonrakı mərhələdə də Azərbaycanla bağlı siyasi proseslərə biganə qalmamış, 90-cı illərin əvvəlində Naxçıvana qayıdaraq zamanın diktəsi ilə siyasi proseslərdə fəal iştirak etmiş, Azərbaycanın dövlət müstəqilliyinə real zəmin formalaşdırmışdır. 1991-ci ilin 18 oktyabrında qüdrətli dövlət xadimi Heydər Əliyevin də imza atdığı "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya aktı" ilə ölkəmizin istiqlaliyyəti bütün dünyaya bəyan edilmişdir (R.Mehdiyev, "Vətəndaş cəmiyyətinə yol açan ideyalar", "Heydər Əliyev irsi dünya siyasi elminin qiymətli nailiyyətinə çevriləcək" əsəri, Bakı 2006, səh 295, www.aliyevheritage.org).

1991-ci ilin oktyabrından 1993-cü ilin iyununadək ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər, eyni zamanda, ölkənin müstəqilliyi üçün real təhdidlərin meydana çıxması, vətəndaş qarşıdurması meyillərinin güclənməsi, hüquqi nihilizmin, xaos və anarxiya mühitinin dərinləşməsi göstərmişdir ki, ölkəni yaranmış acınacaqlı vəziyyətdən yalnız Heydər Əliyev kimi müdrik və uzaqgörən şəxsiyyət xilas edə bilər. Ümummilli lider 1993-cü ildə xalqın təkidli çağırışına cavab verərək hakimiyyət sükanı arxasına keçmiş, ölkədə ictimai-siyasi sabitliyi, qanunçuluğu bərpa etmiş, eyni zamanda, insan hüquq və azadlıqlarının təminatına xidmət edən hüquqi islahatların müəllifi olmuşdur.

Ulu öndər Heydər Əliyev bu mərhələdən Azərbaycanın yeni dövr üçün demokratik inkişaf modelini müdrikliklə irəli sürmüş, eyni zamanda, bu mütərəqqi dəyişikliklərin ictimai şüurda tədricən qəbul olunması zərurətini önə çəkmişdir. Böyük öndərin dövlətçilik konsepsiyası Azərbaycanın tarixi ənənələrini və müasir Avropa dəyərlərini özündə birləşdirən yeni inkişaf modeli olmuşdur. İcimai-siyasi sabitlik faktoru bu modelin əsas dayaqlarından, istinad nöqtələrindən biri kimi çıxış etmişdir. Şübhəsiz, sabitliyə nail olmadan yeni idarəetmə sisteminə keçid formulunu reallaşdırmaq, bazar iqtisadiyyatı və demokratiya, insan hüquqları kimi fundamental prinsiplərin tətbiqinə nail olmaq mümkün deyildir. Məhz bu sabitliyin, iqtisadi tərəqqinin nəticəsidir ki, hazırda demokratik normalar qanunların və milli dəyərlərin tənzimlədiyi sərhədlərdən kənara çıxmır və dialektik inkişafa uyğun olaraq getdikcə ictimai şüur tərəfindən tam şəkildə mənimsənilir.

Ulu öndər Heydər Əliyevin siyasi uzaqgörənliyinin, prinsipiallığının və siyasi iradə nümayişinin məntiqi nəticəsi olaraq 1994-cü ildə "Əsrin müqaviləsi"nin əfsanədən reallığa çevrilməsi ölkənin bütün strateji əhəmiyyətli sahələrinin inkişafına təkan vermişdir. "Əsrin müqaviləsi"nin imzalanmasının milli inkişafdakı misilsiz əhəmiyyəti bügünkü intensiv sosial-iqtisadi inkişaf fonunda daha qabarıq görünür. Azərbaycana son illərdə daha böyük uğurlar gətirən bu strategiyanın əsas mahiyyəti ölkənin malik olduğu təbii sərvətlərdən Azərbaycan xalqının rifahı naminə daha uğurlu şəkildə istifadə etməyə əsaslanır. Bu strategiyanın həyata keçirilməsi iqtisadi maraqlarla yanaşı, milli təhlükəsizlik maraqlarının təmin olunmasına yönəlmişdir. Heydər Əliyevin təməlini qoyduğu uğurlu neft strategiyası təkcə dövlətin iqtisadi maraqlarının realizə olunmasına deyil, paralel olaraq dövlət müstəqilliyinin qorunub saxlanmasına yönəlik siyasi xəttin yürüdülməsinə, buna uyğun əlverişli situasiyanın formalaşdırılmasına xidmət etmişdir.

"Əsrin müqaviləsi" imzalandıqdan sonra Ümummilli lider özünün zəngin iqtisadi bilik və təcrübəsi əsasında Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirmiş, bu sahədə mövcud problemlərin həlli yollarını elmi-nəzəri və praktiki əsasda göstərmişdir. Ümummilli lider mərkəzi planlaşdırma və bölgü prinsiplərinin hakim olduğu ictimai-iqtisadi formasiyadan azad bazar iqtisadiyyatına optimal keçid modelini

özünəməxsus intuiziazmla irəli sürmüş, onun həyata keçirilməsinə çalışmışdır. Azərbaycanda bazar iqtisadiyyatının başlıca prinsipləri - xüsusi mülkiyyətçilik, azad sahibkarlıq fəaliyyəti, özəlləşdirmə, qeyri-neft sektorunun, sənayenin inkişafı və sosial infrastrukturun yeniləşdirilməsi prioritet seçilmişdir. İqtisadi sahədə həyata keçirilən islahatların əsasında bazar iqtisadiyyatının formalaşdırılması yolu ilə ümumi daxil məhsul istehsalını artırmaq, qeyri-neft sektorunun sürətli inkişafını təmin etmək məqsədi dayanmışdır.

Böyük strateq Heydər Əliyev Azərbaycanın həqiqi müstəqilliyinin təmin edilməsi üçün hər bir fərdin mənafeyinə cavab verən hüquqi islahatların aparılmasını da təmin etmişdir. 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını da dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır. Konstitusiyada hakimiyyət bölgüsü prinsipləri dəqiq əksini tapmış, zamanın tələbi ilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə fundamental hüquqi zəmin yaradılmışdır. Konstitusiyada əksini tapmış müddəaların üçdə ikisinin sırf insan hüquqları ilə bağlı olması da ulu öndərin insan hüquqlarına necə böyük həssaslıqla yanaşmasının bariz təcəssümüdür.

Prezident İlham Əliyevin 21 yanvar 2013-cü il tarixli "Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" Sərəncamında vurğulandığı kimi, "**Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissəsidir**" (www.azerbaijan-new.az Azərbaycan Respublikası Prezidentinin 21 yanvar 2013-cü il tarixli "Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" Sərəncamı).

Ümummilli liderin Azərbaycanın müstəqilliyin möhkəmləndirilməsi istiqamətində mühüm addımlarından biri də cəmiyyətin vahidliyinin, bütövlüyünün təmin olunması, milli ideologiyanın sistem halında təqdimatıdır. Bu bir reallıqdır ki, Ulu öndər cəmiyyətin vahidliyini təmin edərək, onun müxtəlif istiqamətlər - sosial bərabərsizlik, regional faktor, dini və milli mənsubiyyət amili baxımından parçalanmasına imkan verməmişdir. Bu, Azərbaycan dövlətçiliyinin yaşaması, inkişaf etməsi baxımından ən düzgün seçim idi və ötən illərin reallıqları da bunu təsdiqləmişdir. "**Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm və bu gun də fəxr edirəm ki, mən Azərbaycanlıyam**" - deyən Ulu öndər dünya azərbaycanlılarını azərbaycançılıq ideologiyası ətrafında səfərbər etmişdir. Bu gün azərbaycançılıq ideologiyası milli həyatın ahəngdarlığının, konfessiyaların dinc yanaşı yaşamasının, ölkədə yaşayan bütün etnosların qardaşcasına qarşılıqlı əlaqəsi və təsirinin çoxəsrlik ənənəsi, onların ümumi taleyi və gələcək müstəqil Azərbaycanın bütövlüyü, inkişafı və firavanlığı uğrunda birgə mübarizəsinin ümumi tarixi təcrübəsidir.

Dünya Azərbaycanlılarının 2001-ci ilin 9-10 noyabrında keçirilmiş I Qurultayında Ümummilli lider Heydər Əliyev demişdir: "**Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir**".

Hələ Sovet Azərbaycanına rəhbərliyi dövründə formalaşdırdığı mütərəqqi ənənələri müstəqillik illərində inamla davam etdirən Ulu öndər Azərbaycanın görkəmli şair, yazıçılarının, elm, incəsənət xadimlərinin yubileylərinin keçirilməsinə, ev-muzeylərinin yaradılmasına xüsusi qayğı ilə yanaşmışdır. Heydər Əliyevin bu sahədəki mədəni quruculuq siyasəti nəticəsində milli-mənəvi dəyərlərimiz qorunmuş, adət-ənənələrimiz yaşadılmış, klassiklərimizin yüz illərin sınağından günümüzə gəlib çatmış mənəvi irsinin gələcək nəsillərə itkisiz çata bilməsi üçün lazım olan bütün zəruri addımlar atılmışdır.

Milli-mənəvi dəyərlərin qorunması məsələsi də Ulu öndər Heydər Əliyevin fəaliyyətində aparıcı xətt kimi göstərmişdir. Ulu öndər istər ailədə, istər hansısa dar çevrədə, istərsə də dövlət idarəçiliyində və cəmiyyətdə daim milli-mənəvi, əxlaqi dəyərlərə sadiq qalmış, etnik-mental tipi etibarilə əsil azərbaycanlı-türk dünyagörüşünə malik olmuşdur. Ulu öndərin idarəçiliyinin bütün mərhələlərində qanunçuluğa, hüquq qaydalarına, ədalətə bağlı olması da, əslində, onun zəngin mənəviyyatından rişələnmişdir. Heydər Əliyev gücün siyasətinə qarşı qanunun gücünü qoyaraq "haqlı həmişə güclüdür" düsturundan çıxış etmişdir. Milli-mənəvi dəyərlərə bağlı olan Ümummilli lider geniş ürək sahibi kimi bəzən siyasi yolunu azmış şəxsləri də bağışlamış, onların bir qismini hətta yüksək vəzifələrə təyin etmişdir. Sonralar Heydər Əliyev həmin şəxslərə xitabən

demişdir: "**Mən dəfələrlə demişəm, heç kəsə damğa vurmaq olmaz. Heç kimi keçmiş səhvlərinə görə cəmiyyətdən təcrid etmək olmaz. Əgər bir adam dünən səhv etmişdirsə, yolunu azmışdırsa və bu gün düz yolla gedirsə, xalqla birlikdədirsə, qanuna riayət edirsə, - buna söz yoxdur**" (Əliyev H. Müstəqilliymiz əbədidir: I-XI cildlər. Bakı: 1997-2003).

Böyük strateq həmişə vurğulayırdı ki, Azərbaycan xalqının əsrlər boyu əldə etdiyi milli-mənəvi dəyərlər milli mədəniyyətdən, əxlaqdan, adət-ənənələrdən və digər insani keyfiyyətlərdən ibarətdir. Ulu öndər milli-mədəni irslə yanaşı, mənəviyyatın, milli əxlaq və düşüncə modellərinin qorunub saxlanılması üçün də səylərini əsirgəməmişdir.

"Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" Sərəncamında Ulu öndərin milli irsə qayğısı da xüsusi vurğulanır: "**Ana dilimizin dövlət dili kimi tətbiqində, onun imkanlarının genişləndirilməsi və Azərbaycan xalqının ən böyük sərvəti kimi dəyərləndirilməsində Heydər Əliyev şəxsiyyətinin rolu danılmazdır. Azərbaycan mədəniyyətinin və zəngin tarixi irsimizin dünya ictimaiyyətinə tanıdılması Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Məhəmməd Füzulinin 500 illik və "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileylərinin UNESCO səviyyəsində keçirilməsi Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edərək beynəlxalq mədəni ictimaiyyətlə yeni əməkdaşlıq formalarının bərqərar olmasına gətirib çıxarmışdır**".

Müstəqil Azərbaycan ötən 20 ildə qazandığı bir sıra nailiyyətlərlə yanaşı, həm də regionda və bütövlükdə Avropa məkanında fərqli dini sivilizasiyaların qovuşduğu tolerant məkan kimi tanınır. Ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbilə hakimiyyətə qayıtdıqdan sonra ölkədə dini, milli, etnik münasibətlərin yüksək səviyyədə tənzimlənməsi, vicdan azadlığının tam bərqərar olması naminə ardıcıl tədbirlər həyata keçirmiş, xalqın milli təhlükəsizlik maraqları baxımından bu sahəyə daim diqqətlə yanaşmışdır. Heydər Əliyev hesab edirdi ki, yalnız milli zəmin - azərbaycançılıq, Azərbaycanda yaşayan bütün millətlərin nümayəndələrinin bərabərliyi və əməkdaşlığı, milli həmrəylik, milli-mənəvi dəyərlərin qorunması, ümumi tarix və ümumi ünsiyyət dili etnik mənsubiyyətindən asılı olmayaraq hər bir azərbaycanlıya özünü hamı üçün ümumi evin qurulmasına səfərbər edilmiş müstəqil insan kimi hiss etmək imkanı verəcəkdir. Heydər Əliyev ölkədə mütərəqqi İslam dəyərlərinin inkişafına xüsusi diqqət yetirməklə yanaşı, başqa dinlərin inkişafına da tolerant mühitin yaradılmasını təmin etmiş, dini konfessiyalar arasında qarşılıqlı hörmətə söykənən münasibətlərin formalaşmasına çalışmışdır.

Bütün bunlar təsdiqləyir ki, Ümummilli lider Heydər Əliyev bütün mənalı həyatı və şərəfli dövlətçilik fəaliyyəti müddətində yalnız Azərbaycanı düşünmüş, onun müasirləşməsinə, qüdrətlənməsinə, çiçəklənməsinə çalışmışdır. Dahi öndər Azərbaycanı daim inkişaf edən, müasir görmək istədiyindən xalqın gələcək taleyinə biganə qalmamış, müasirləşmə xəttini özündən sonra layiqincə davam etdirəcək müasir düşüncəli, yüksək idarəetmə və təşkilatçılıq qabiliyyətinə malik müasir ruhlu lider yetişdirmişdir. Əgər Heydər Əliyevin müasirləşmə siyasəti ötən əsrin 70-ci illərindən etibarən Azərbaycanı keçmiş SSRİ-nin qabaqcıl ölkəsinə çevirmişdisə, eyni zamanda, 90-cı illərdə xoas və tərəqqidən inkişafa doğru mükəmməl strategiyanı təmin etdişdisə, Onun layiqli davamçısı cənab İlham Əliyevin yürütdüyü modernləşmə kursu respublikamızın milli inkişaf modelinin formalaşmasını şərtləndirmişdir.

Prezident İlham Əliyevin son 9 ildə ölkəyə rəhbərliyinin ən parlaq nəticəsi ondan ibarətdir ki, bu gün Azərbaycan, sözün əsl mənasında, tam müstəqil siyasət yürüdən ölkədir. Bu gün müstəqil Azərbaycan dövlətinin öz siyasi dəst-xətti, dövlətçilik siması, inkişaf yolu vardır. Ölkə iqtidarının milli maraqlara əsaslanan siyasəti, iqtisadi inkişaf və demokratikləşdirmə, hüquqi dövlət quruculuğu, effektiv diplomatiya istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti də məhz milli müstəqilliyin praktik olaraq gerçəkləşdirilməsini təmin etmişdir. Modernləşmə xəttini uğurla davam etdirən cənab İlham Əliyev hesab edir ki, bu yol ölkəmizi bilik və informasiya cəmiyyətinə gətirib çıxaracaqdır. Azərbaycanın sosiomədəni modernləşməsi təkcə yeni texnologiyaların və bazar mexanizmlərinin tez bir zamanda keyfiyyətli tətbiqini deyil, kreativ və innovasion şüurun köməyi ilə millətin sivil yeniləşməni şərtləndirə bilən institutların yaranmasını nəzərdə tutur.

Ötən illərdə uğurla gerçəkləşdirilən sosial-iqtisadi islahatların - davamlı və tarazlı inkişafı stimullaşdıran dövlət proqramlarının, ictimai həyatın bütün sahələrini əhatə edən fərman və sərəncamların nəticəsi olaraq respublikamız son illərdə dünyanın sürətli inkişaf yolunda olan, qlobal maliyyə-iqtisadi böhrandan uğurla çıxan, özünəməxsus milli inkişaf modeli olan dövlətlərindən biri kimi tanınır. 2009-cu ildə keçid dövrünü geridə qoyan respublikanın iqtisadi inkişafı son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Bu mərhələdə əsas məqsədlərdən biri də milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, uzunmüddətli perspektivə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir.

Dövlət başçısı YAP-ın 20 illik yubileyi münasibətilə keçirilən tədbirdə demişdir: "**Əgər gələcəklə bağlı fikirlərimizi bir cümlə ilə ifadə etsək, deməliyik: biz inkişaf etmiş ölkəyə çevrilməliyik! İnkişaf etmiş ölkələrin meyarları vardır. Bunları bilirik və biz hər bir istiqamət üzrə o meyarlara çatmalıyıq - həm siyasi, iqtisadi islahatlar, sosial siyasət və digər istiqamətlərdə. Buna nail olmaq üçün həmişəki kimi, cəmiyyətimiz bir nöqtəyə vurmalıdır və cəmiyyətimizin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası növbəti 20 il ərzində, əlbəttə ki, öz işini uğurla aparmalıdır, müasir qaydalarla, müasir üsullarla**!" (Azərbaycan qəzeti, 2012-ci il, 18 noyabr).

Son illərdə dövlət başçısının imzaladığı fərmanlarda, təsdiq etdiyi dövlət proqramlarında bu hədəfin reallaşması üçün yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyənləşdirilmişdir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının təsdiqlənməsində məqsəd də respublika iqtisadiyyatındakı pozitiv meyilləri daha da sürətləndirmək və mövcud potensialı davamlı inkişaf naminə tam səfərbər etməkdir. Əlbəttə, gələcəyə dair baxışlar, strategiyalar nə qədər mükəmməl olsa da, onların taleyi, həyata keçirilməsi gözlənilməz hadisələrdən, ssenarilərdən deyil, bütün hallarda lider missiyasından - qərarların qəbulu sənətindən asılı olur. Azərbaycan öz inkişafının dönüş mərhələsində yaşayır və bunu mümkün edən isə düzgün hədəflər və onların davamlı reallaşdırılmasından irəli gələn nəticələrdir. Bu siyasətin gedişində yalnız konkret ölkə miqyasında deyil, bütövlükdə, regionda və dünyada proseslərin axarını yeni məcraya yönəldə biləcək tarixi qərarlar verilir. İnkişaf Konsepsiyası rəqabətqabiliyyətli, ixracyönümlü, çoxşaxəli, innovativ iqtisadiyyatın formalaşdırılmasını, sənayeləşmə siyasətinin sürətləndirilməsini, mütərəqqi təcrübəyə əsaslanan sənaye zonalarının yaradılmasını, müəssisələrin texnoloji cəhətdən yeniləşdirilməsini, intensiv metodların tətbiqinin daha da genişləndirilməsini və digər tədbirləri nəzərdə tutur. Konsepsiyada nəzərdə tutulmuş tədbirlərin icrası nəticəsində 2020-ci ilədək ölkədə adambaşına düşən ÜDM-in həcminin iki dəfədən çox artaraq 13000 ABŞ dollarına çatdırılacağı gözlənilir. Həmin dövrədək Azərbaycanın Dünya Bankının adambaşına düşən Ümumi Milli Gəlir təsnifatına görə "yuxarı orta gəlirli ölkələr" arasında və BMT İnkişaf Proqramının İnsan İnkişafı ilə bağlı təsnifatına əsasən "yüksək insan inkişafı" ölkələri qrupunda üst sıralara yüksəlməsi hədəflənir (www.azertag.com. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası).

Əsl siyasətçi mümkün olmayanı reallaşdırmaq qabiliyyəti ilə seçilir. Vəd vermək mümkündür, lakin onu reallaşdırmamaq ən cəlbedici ideyaları da insanların gözündən salmaq deməkdir. Bu mənada, cənab İlham Əliyev hər cür pafosdan, populizmdən tamamilə uzaq olan, praqmatik, realist təfəkkürlü liderdir. Ölkə başçısının elə bir vədi yoxdur ki, ötən 9 ildə bəyanat səviyyəsində, reallaşmamış qalsın. Əksinə, cəmi 9 ildə həyata keçirilən islahatların - real miqyasına, əhəmiyyətinə görə - ən azından onilliklər ərzində reallaşdırılması mümkündür. Fəqət, öz liderinin yüksək iradəsi, əzmi, qətiyyəti sayəsində, idarəçilik keyfiyyətləri sayəsində Azərbaycan bu dövrdə fantastik görünə biləcək sürətli inkişaf yolu keçmiş, bir sıra taleyüklü məsələlərin həllinə nail olmuşdur.

Ümummilli liderin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi Ərzurum qaz kəməri istifadəyə verilmiş, "Ümid", "Abşeron" kimi perspektivli yataqlar kəşf olunmuş, Şərqlə Qərbi qovuşduracaq Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin tikintisinə başlanılmış, ölkə əhəmiyyətli yol-nəqliyyat sistemi, infrastruktur müasirləşdirilmişdir. Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqli məqsədilə boru kəmərlərinin şaxələndirilməsi respublikamızı bütövlükdə Avropa məkanının enerji təhlükəsizliyi sisteminin əsas təminatçılarından birinə çevrilməsini təmin etmişdir. Bu gün Azərbaycan bütövlükdə MDB və Avropa məkanında heç bir ölkədən enerji asılılığı olmayan, müstəqil siyasət yeridən azsaylı dövlətlərdən biridir. Bu fakt özlüyündə Azərbaycanın dünya birliyi üçün önəmini daha da artırmış, respublkamızın Avratlantik strukturlara inteqrasiya prosesini sürətləndirmişdir.

Cənab İlham Əliyevin qazandığı uğurların bir mühüm səbəbi də var: dövlət başçısı insan və şəxsiyyət amilini ucaltmaqla, hər bir vətəndaşın maraqlarının dövlət üçün üstün olduğunu nümayiş etdirmişdir. İlham Əliyevin prezidentlik dövrünün ən böyük uğurlarından biri də Azərbaycan kəndinə şəhər simasının gətirilməsi olmuş, cənubdan şimala, şərqdən qərbə çoxsaylı yaşayış məntəqələrində yeni sosial-mədəni obyektlər - ən müasir tələblərə cavab verən yeni məktəblər, səhiyyə ocaqları, körpülər, yollar tikilmişdir. Hətta Sovet dövründə də mavi yanacaq üzü görməyən Yardımlıya, Lerikə qaz çəkilmiş, Qubanın ucqar dağ kəndi Xınalığa yol çəkilmiş, daha bir fantastik layihənin - strateji əhəmiyyətli Quba-Şamaxı yolunun inşasına start verilmişdir. Bütün bunlar regionlarda mənəvi ab-havanın yaxşılaşmasına səbəb olmaqla, Azərbaycan insanının dövlətə, onun rəhbərinə etimadı, sevgini və rəğbətini daha da artırır.

Şübhəsiz, əldə edilən uğurlu nəticələrlə yanaşı, cənab İlham Əliyevin idarəçiliyində özünütənqid ruhu, proseslərə obyektiv yanaşma üsulu mühüm xətt kimi diqqəti çəkir. Dövlət başçısı əldə olunmuş nailiyyətlərlə bərabər, problemləri və onların həlli yollarını göstərir, verdiyi hər bir göstərişin icrasına nəzarət edir, islahatları sürətləndirən struktur tədbirlər həyata keçirir. Ölkə başçısının rəhbərliyi altında aparılan nəhəng işlər isə

Azərbaycanın əldə etdiyi nailliyyətlərin qarşıdakı illərdə daha geniş miqyas alacağını əminliklə söyləməyə əsas verir.

**“Yeni Azərbaycan”.-**2013.-19 aprel.-N 68.-S.4-5.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA NEFT SƏNAYESİNİN İNKİŞAFI

**Xoşbəxt Yusifzadə,**
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse–prezidenti,
AMEA–nın akademiki.

**İyirmi birinci əsrin Azərbaycanı dünyanın daim inkişaf edən ölkələri sırasındadır. Paytaxtımız Bakının və regionların müasir mənzərələri ölkəmizin böyük maliyyə imkanlarını əyani şəkildə nümayiş etdirir. İnsanların rifahı, güzəranı ilə bağlı məsələlər ardıcıl həll olunur, ölkə həyatının ən müxtəlif sahələrini əhatə edən yeni möhtəşəm quruculuq proqramları həyata keçirilir. Azərbaycan geniş tərəqqi və müasirləşmə yolunda inamla irəliləyir.**

**Bu, ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi və böyük uzaqgörənliklə işləyib hazırladığı Yeni Neft Strategiyası ilə başlanmış bir yoldur.**

Ölkəmizin müstəqillik illərindəki hərtərəfli inkişafında Azərbaycan neftinin həlledici rolu bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Respublikamıza rəhbərlik etdiyi illərdə o, neft sənayesinə ölkə iqtisadiyyatının hərəkətverici qüvvəsi kimi baxmış, ona böyük önəm vermiş və neftçilərdən qayğısını heç vaxt əsirgəməmişdir. Bunu mən böyük Azərbaycan nefti uğrunda ümummilli liderimizin çoxillik gərgin mübarizəsinin şahidlərindən və iştirakçılarından biri kimi deyirəm.

Ümummilli liderimizlə mənim ilk görüşüm, onun respublika rəhbərliyinə gəlməsindən bir il qabaq olmuşdur. 1968–ci ildə Türkiyənin o vaxtkı Baş naziri Süleyman Dəmirəl Moskvada sovet rəhbərliyi ilə danışıqlardan sonra vətəninə yolunu Bakıdan salmışdı. Azərbaycan paytaxtına səfəri çərçivəsində o, Xəzər neftçilərinin işləri ilə tanış olmaq istəmiş və buna görə də hörmətli qonağı Qum adasına gətirmişdilər. Süleyman Dəmirəli Qum adasına müşayiət edən rəsmi şəxslərdən biri respublika Dövlət Təhlükəsizlik Komitəsinin sədri Heydər Əliyev idi. O, elə ilk tanışlığımızdan bizə çox mehriban, səmimi və istiqanlı bir insan təsiri bağışladı. Onun qətiyyətli və nüfuzedici baxışları indi də gözlərimin önündədir.

Ötən əsrin altmışıncı illərində Azərbaycana gələn xarici qonaqların əksəriyyəti dənizdəki neft mədənlərini görmək, neftçilərimizlə görüşüb söhbət etmək istəyirdilər. Bu, təbii bir istək idi, çünki Azərbaycan dənizdə neftçıxarmanın pioneri kimi böyük şöhrət qazanmışdı. Amma bununla belə, həmin illərdə respublikamızın neft sənayesində vəziyyət ürəkaçan deyildi. Respublika iqtisadiyyatının digər sahələri kimi neft və qaz sənayesi də tənəzzülə uğramışdı. Belə bir vaxtda — 1969–cu ildə Azərbaycan KP MK–nın birinci katibi seçilmiş Heydər Əliyevin bu vəziyyətdə dözməyəcəyi elə ilk günlərdən məlum oldu. Bu, bizi çox sevindirdi, çünki qədim Odlar diyarı kimi tanınmış respublikamızın bu sahədə geriləməsi neftçilərə, həqiqətən də, ağır gəlirdi.

1970–ci ildə Azərbaycan KP MK–nın plenumunda Heydər Əliyevin məruzəsi də göstərdi ki, respublikanın rəhbərliyi neftimizin itirilmiş şöhrətini bərpa etmək, iqtisadiyyatı sürətlə inkişaf etdirmək xəttini götürmüşdür. Həmin plenumu mən yaxşı xatırlayıram və yadımdadır ki, plenumdakı məruzəsində Heydər Əliyev neft sənayesinin işini ətraflı təhlil etdi, uzunmüddətli geriliyin səbəblərini göstərdi, görüləcək işlərin proqramını verdi. Beləliklə də hərtərəfli düşünülmüş, qlobal tədbirlərin həyata keçirilməsinə start verildi. Ötən əsrin 70–80–ci illərində neft sənayesi üçün müxtəlif təyinatlı 400–dən çox gəmi alındı. Bunların arasında kran gəmiləri, o cümlədən 2500 ton gücündə “Azərbaycan” kran gəmisi, borudüzən və seysmik gəmilər, sərnişin gəmiləri və s. var idi. O vaxt dünyada analoqu olmayan Dərin Dəniz Özülləri Zavodu inşa edildi. Geoloji–kəşfiyyat işləri üçün neftçilərin sərəncamına əvvəlcə “Xəzər” tipli özüqalxan qazma qurğuları, sonra isə “Şelf” tipli yarımdalma üzən qazma qurğusu verildi…

Bütün bunlar 1970–ci ildən bilavasitə dənizin içərilərinə istiqamətləndirilmiş mühüm təşkilati tədbirlərin məntiqi davamı idi. Həmin il Azərbaycanın Neft Sənayesi Nazirliyi ləğv olundu və əvəzində “Xəzərdənizneft” İstehsalat Birliyi yaradıldı. SSRİ Neft Sənayesi Nazirliyi Azərbaycan neftçilərinin dəniz şəraitindəki iş təcrübəsini nəzərə alaraq Xəzərin bütün sektorlarında — İranla sərhəddən Şimali Xəzərədək uzanan çox geniş bir ərazidə geoloji–kəşfiyyat, qazma, işlənmə, istismar işlərini və s. bizə həvalə etdi.

Yeri gəlmişkən deyim ki, o vaxt həmin İstehsalat Birliyinə baş direktorun müavini—baş geoloq vəzifəsinə məni ümummilli liderimiz təyin etdi və beləliklə də tale mənə uzun illər onun rəhbərliyi altında işləmək, vaxtaşırı onunla ünsiyyətdə olmaq xoşbəxtliyini nəsib etdi.

Neft sənayesində baş verən dəyişikliklər ölkəmizə nə verdi? Bu sualın cavabı çox genişdir. Mən isə o vaxt əldə edilmiş nailiyyətləri xatırlatmaq üçün ən mühüm fakt və rəqəmlərlə kifayətlənəcəyəm.

Heydər Əliyevin rəhbərliyi dövründə respublikanın neft ehtiyatları iki, qaz ehtiyatları isə üç dəfə artırıldı. 1975–ci ildə ümumi neft və qaz hasilatı şərti yanacaqla 27,1 milyon tona çatdırıldı. Sovet İttifaqı dağılanadək

dənizin Türkmənistan, Qazaxıstan və Rusiya sektorlarında da səmərəli kəşfiyyat işləri aparan Azərbaycan neftçiləri dənizdə 350–dən çox struktur aşkar etdilər. Onlar Xəzərin Azərbaycan sektorunda yeni yataqlarla yanaşı dənizin Türkmənistan sektorunda Şərqi Livanov, İ.M.Qubkin adına, Barinov adına, LAM və Çələkənyanı günbəz, Rusiya sektorunda İnçıxe–dəniz 1 və İnçıxe–dəniz 2 neft yataqlarını və Qazaxıstan sektorunda bir neft yatağını kəşf etdilər.

Heydər Əliyevin respublikamıza rəhbərliyinin Sovet dövrü təkcə istehsalat nailiyyətləri ilə deyil, həm də ümummilli liderimizin neftçilərə böyük qayğısı ilə xarakterizə edilir. Yalnız bir fakt: ulu öndərin respublikaya rəhbərliyi illərində neftçilər üçün tikilən mənzillərin sayı rekord həddə çatmışdı. 70–ci illərin sonlarında neftçilərin mənzilə ehtiyacı 95 faizdən də çox ödənilmişdi.

İllər keçdi. Respublika üçün yeni sınaqlar dövrü başlandı. 1991–ci ildə müstəqilliyini əldə etmiş Azərbaycanda təzə bir qurum — Dövlət Neft Konserni yaradıldı. O vaxt respublikada vəziyyət çox gərgin idi, hər yerdə, o cümlədən neft sənayesində hərc–mərclik hökm sürürdü. Sonra Konsern ləğv edildi, əvəzində Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) yaradıldı. Amma mütəxəssislərin səylərinə baxmayaraq, neft sənayesində vəziyyət ağır olaraq qalırdı.

Nəhayət, 1993–cü ildə xalqın tələbi ilə Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtdı.

O vaxt iqtisadi əlaqələr pozulmuş, təchizatla bağlı problemlər kəskinləşmiş, neft sənayesi, sözün əsl mənasında iflic olmuşdu. Neft və qaz hasilatının səviyyəsi getdikcə aşağı düşürdü. Buna son qoymaq və iqtisadi dirçəlişə nail olmaq üçün "Günəşli" yatağının dərinsulu hissəsinin, "Çıraq" və "Azəri" yataqlarının işlənilməsini təmin etmək lazım idi. Lakin zəruri maliyyə vəsaiti və müvafiq texniki vasitələri olmayan Azərbaycan bu işi təkbaşına, yalnız öz qüvvəsi ilə görmək iqtidarında deyildi. İki yol vardı: ya 30–40 il gözləməliydik, ya da xarici neft şirkətlərini dəvət edib, yataqları birgə işlətməliydik. Prezidentimiz Heydər Əliyevin rəhbərliyi altında Dövlət Neft Şirkəti Azərbaycanın milli marağına tamamilə uyğun gələn ikinci yolu seçdi. Qeyd etmək lazımdır ki, ölkəmizdə bu yolun əleyhdarları da var idi və onlar belə hesab edirdilər ki, nəzərdə tutulan işlər Azərbaycanın daxili imkanları sayəsində həyata keçirilə bilər. Lakin tamamilə yoxsullaşmış respublika böyük işlərin öhdəsindən gəlmək iqtidarında deyildi. Digər tərəfdən, məlumdur ki, dənizin dərinsulu sahələrində neft–qaz yataqlarının işlənilməsi çox mürəkkəb məsələdir və belə yataqlardan neft–qaz hasil etmək üçün xarici şirkətlərlə işbirliyinin qurulması dünya təcrübəsində geniş yayılmış bir üsuldur. Riskləri azaltmaq üçün dünyanın ABŞ, Böyük Britaniya, Fransa kimi qüdrətli dövlətləri, inkişaf etmiş digər ölkələr və iri neft şirkətləri də dərinsulu akvatoriyalarda səylərini, imkanlarını birləşdirməyə üstünlük verirlər. Qeyd etməliyəm ki, xarici şirkətlərlə "Azəri" yatağı üzrə danışıqlar hələ sovet dövründə başlanmışdı.

Lakin bu danışıqların öz məntiqi nəticəsinə çatdırılması yalnız Heydər Əliyevin respublika rəhbərliyinə ikinci qayıdışından sonra mümkün oldu. Danışıqlar prosesi onun sayəsində sürətləndi, bütün mürəkkəb məsələlər barəsində dünyanın 7 ölkəsinin 11 məşhur neft şirkəti ilə birgə razılıq əldə edildi və 1994–cü il sentyabrın 20–də tarixə "Əsrin müqaviləsi" kimi düşmüş "Azəri" , "Çıraq" və "Günəşli" (suyun dərin hissəsi) yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" məşhur saziş imzalandı.

"Əsrin müqaviləsi"nin Azərbaycan üçün əhəmiyyətindən çox danışmaq olar. Bununla belə, oxucuların diqqətini mən bizim üçün olduqca önəmli sayılan iki əsas məsələyə cəlb etmək istəyirəm. Əvvəla, saziş dünyanın aparıcı ölkələri və şirkətlərini bir daha əmin etdi ki, Azərbaycan müstəqil dövlət və etibarlı tərəfdaşdır, burada işləmək və bu ölkəyə sərmayə qoymaq olar. Heç təsadüfi deyil ki, bu saziş imzalandıqdan sonra xarici şirkətlərlə daha 33 müqavilə bağlandı və bu, onun böyük siyasi əhəmiyyətidir. "Əsrin müqaviləsi"nin çox böyük iqtisadi faydası isə onun respublikada neft–qaz hasilatının səviyyəsinin yüksəldilməsindəki rolu ilə izah olunur. Neft hasilatı 1997–ci ildəki 9 milyon tondan 2010–cu ildə 50,7 milyon tona, qaz hasilatı isə 2004–cü ildəki 5 milyard kubmetrdən 2010–cu ildə 26,0 milyard kubmetrə çatdırıldı.

Hazırda bu saziş üzrə "Çıraq", "Azəri" və "Günəşli" (dərinsulu hissə) sahələrində quraşdırılmış dəniz özüllərindən 60–dan artıq istismar quyusu qazılmışdır. Bu quyulardan gündə orta hesabla 91 min tondan çox neft və 35 milyon kubmetr qaz çıxarılır. Həmin yataqlardan işlənilmənin əvvəlindən, yəni 1997–ci ilin noyabrından bəri 298,4 milyon tondan artıq neft və 81,4 milyard kubmetrdən çox qaz hasil edilmişdir.

Artıq 14–cü ildir ki, "Azəri–Çıraq–Günəşli" layihəsinin iştirakçıları, o cümlədən Azərbaycan "mənfəət nefti"ndən gəlir əldə edirlər. 1999–cu ilədək neftin satışından əldə edilən gəlir sərmayə qoyuluşunun ödənilməsinə sərf edilirdisə, həmin ilin dekabrından Azərbaycanın "mənfəət nefti" ilə dolu tankerlər xarici bazarlara yol alır. 2013–cü ilin aprel ayının 1–dək dünya bazarlarında 152 milyon ton "mənfəət nefti" satılmışdır. Mənfəət neftindən əldə edilən gəlirin xalqın xidmətinə verilməsi, onun rifahının yüksəldilməsinə yönəldilməsi üçün ümummilli liderimiz Heydər Əliyev yenə də müdriklik və uzaqgörənlik nümayiş etdirərək, Neft Fondu yaratdı. "Mənfəət nefti"nin satışından əldə edilən gəlir Neft Fondunda toplanır, respublikanın qeyri–neft sektorunun, regionların və ümumiyyətlə, Azərbaycanın tərəqqisinə sərf edilir.

Əgər "Azəri–Çıraq–Günəşli" layihəsi ümummilli liderimiz Heydər Əliyevin birinci böyük əsəri idisə, Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri onun ikinci əsəri oldu. Bu kəmər çəkiləndə Azərbaycan nefti dünya bazarlarına 2 ixrac boru kəməri vasitəsilə çıxarılırdı: Bakı–Novorossiysk və Bakı–Supsa. Bakı–Tbilisi–Ceyhan kəməri çəkiləndə bunun da əleyhdarları tapıldı. Lakin həyat göstərdi ki, uzunluğu 1730 kilometr, illik buraxıcılıq qabiliyyəti 50 milyon ton olan BTC–nin Azərbaycan və region üçün son dərəcə böyük əhəmiyyəti vardır.

Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri 2005–ci il may ayının 28–də istismara verildi. Kəmərin təntənəli açılışı isə 2006–cı il iyul ayının 13–də oldu. Açılış mərasiminin iştirakçısı kimi deməliyəm ki, bu əsas ixrac neft kəməri bütün dünyaya səs saldı. Azərbaycan Prezidenti İlham Əliyev təntənəli mərasimdəki nitqində əmin olduğunu bildirdi ki, neft kəməri Avropa və dünya dövlətləri arasında iqtisadi əlaqələrin və dostluq münasibətlərinin möhkəmlənməsində mühüm rol oynayacaqdır.

"Əsrin Müqaviləsi"nin övladı kimi bu layihənin bir çox üstün cəhətləri vardır. Bu ixrac neft kəməri Qara dənizdən yan keçərək, böyük tutumlu tankerlərin hərəkət etmək imkanı olmayan Bosfor və Dardanel boğazlarından keçmədən birbaşa Aralıq dənizinə çıxır. Aralıq dənizində böyük tutumlu tankerlərin hərəkət etmək imkanları çox olduğundan neftin ən müxtəlif istiqamətlərdə daşınmasının iqtisadi cəhətdən sərfəli olacağı barədə fikirlər təsdiq edildi. Beləliklə, Aralıq dənizini əhatə edən dövlətlərin neftə böyük həcmdə ehtiyaclarmı ödəməyə və dünyanın digər ölkələrinə Azərbaycan neftinin nəql edilməsinə imkan yarandı. Nəhayət, onu da deyim ki, bu il mart ayının sonunadək Bakı–Tbilisi–Ceyhan kəməri ilə 213 milyon tondan çox neft ixrac edilmişdir.

Əgər "Əsrin müqaviləsi" Azərbaycanı neft ölkəsi kimi təsdiq etdisə, "Şahdəniz" yatağının kəşfl respublikamızı dünyaya qaz ölkəsi kimi tanıtdırdı.

"Şahdəniz" strukturu birinci dəfə 1954–cü ildə Azərbaycan geofizikləri tərəfindən aşkar edilmiş və 1983–cü ildə dərin axtarış qazmasma hazırlanmışdı. Lakin həmin sahədə dənizin dərinliyinin çox olması və perspektiv neftli–qazlı layların böyük dərinliklərdə yatması ilə, həmçinin iqtisadi çətinliklərlə əlaqədar burada aparılan işlər nəticə verməmişdi. "Şahdəniz" strukturunun yenidən dərin kəşfiyyat qazmasma daxil edilməsi 1996–cı il iyunun 4–də xarici şirkətlərlə "Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" perspektivli sahəsinin kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında" sazişin imzalanması hesabına mümkün oldu. Saziş üzrə aparılan axtarış–kəşfiyyat işləri nəticəsində Şahdəniz yatağı 1999–cu ilin iyul ayında aşkar edildi.

Həmin il iyulun 12–də yataqda əldə edilmiş nəticələrin təqdimat mərasimində çıxış etmək üçün ulu öndərimiz mənə də söz verdi. Mən Xəzərdə zəngin neft və qaz yataqlarının kəşf edilməsində və işlədilməsində ümummilli liderimiz Heydər Əliyevin misilsiz xidmətlərindən danışdım və "Şahdəniz" yatağı barədə məlumat verərkən dedim ki, bu yatağın da taleyi Heydər Əliyevlə bağlıdır. Qeyd etdim ki, "…baxmayaraq, Azərbaycan geoloqları, geofizikləri iyirmi ildir bu yatağın perspektivinə inanırdılar, orada iş görürdülər, amma ortada bir şey yox idi. Yadımdadır, 1996–cı ilin may ayı idi. **Hörmətli Prezidentimiz hamımızı yığdı, bizi dinlədi. Sonra da öz qətiyyəti ilə qərara gəldi ki, biz Azərbaycanı qazla mütləq təmin etməkdən ötrü "Şahdəniz" yatağında hökmən xaricilərlə birlikdə işləməliyik". Daha sonra "Şahdəniz" yatağının ehtiyatları məsələsinə toxunaraq dedim ki, biz inanırıq, yataqda ikinci–üçüncü quyular qazılandan sonra onun ehtiyatı bundan da artıq olacaqdır. Buna heç bir şübhəmiz yoxdur. Bu vaxt Heydər Əliyevlə mənim aramda belə bir dialoq oldu:**

**Heydər Əliyev: Demək, indi 700 milyard kubmetrdir. Bunu deyirsiniz.**

**Cavab verdim: Bəli, amma mənə qalsa, deyə bilərəm ki, orada ehtiyat bir trilyon kubmetrdən az olmaz. Bəlkə artıq olacaq, amma əskik olmaz**.

Zaman və görülən işlər fikirlərimizin doğruluğunu təsdiq etdi. Artıq məlumdur ki, "Şahdəniz" yatağının karbohidrogen ehtiyatları bir trilyon 200 milyard kubmetr qazdan və 240 milyon ton kondensatdan ibarətdir. Bu, dünya dənizlərində indiyədək kəşf olunmuş nəhəng qaz–kondensat yataqlarından biridir.

"Şahdəniz" yatağının mənimsənilməsinə 2006–cı ilin dekabrında başlandı və hazırda da yataqda işlərimiz uğurla gedir. İndiyədək burada 6 istismar quyusu qazılıb. Bu quyuların gündəlik hasilat imkanı 25 milyon kubmetr qaz və 6000 ton kondensatdır. İşlənmənin əvvəlindən "Şahdəniz" yatağından 40,6 milyard kubmetr qaz, 10,7 milyon ton kondensat hasil edilmişdir. Bu yataqda "Faza–2" layihəsinin həyata keçirilməsi ilə illik qaz hasilatı 25 milyard kubmetrə çatdırıla bilər.

"Şahdəniz" yatağının kəşfi ilə Azərbaycan qaz idxal edən ölkədən qaz ixrac edən ölkəyə çevrildi.

Müstəqilliyimizin 22 ili ərzində ölkədə 252 milyard kubmetr qaz hasil edilmişdir. Bu ilin mart ayınadək Türkiyəyə 24,2 Gürcüstana 5,9, Rusiyaya isə 2,8 milyard kubmetr qaz ixrac olunmuşdur.

Ulu öndərimiz Heydər Əliyevin yeni neft strategiyasının, onun müəyyən etdiyi möhtəşəm vəzifələrin həyata keçirilməsi uğrunda genişmiqyaslı iş ölkəmizin Prezidenti cənab İlham Əliyev tərəfindən inamla davam

etdirilməkdədir. Məhz onun rəhbərliyi ilə son illərdə Azərbaycan neftçiləri şanlı neft salnaməsinə yeni parlaq səhifələr yazmış, ulu öndərimizin arzularının həqiqətə çevrilməsi üçün böyük işlər görmüşlər. Bu səhifələrdən biri "Ümid" yatağının kəşf olunması ilə bağlıdır. Bu barədə danışarkən mən bir məsələni də qeyd etmək istəyirəm: əgər 2010–cu ilədək Xəzərdə axtarış–kəşfıyyat işlərini xarici şirkətlərlə birgə aparırdıqsa, həmin ildən ARDNŞ bu işlərin bir qismini özü görməyə başladı. Belə ki, uzun fasilədən sonra Xəzərin Azərbaycan sektorundakı "Ümid" strukturunda yenidən axtarış–kəşfiyyat işlərinə başlanması 2010–cu ilin noyabrında burada nəhəng qaz–kondensat yatağının kəşf edilməsi ilə nəticələndi.

Həmin ilin noyabr ayının 24–də Prezident İlham Əliyev ölkəmizin neft–qaz tarixində bu böyük hadisə münasibətilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin rəhbərliyi ilə görüşdü.

Dövlət başçısı görüşdəki nitqində dedi: "Ümid" yatağı açıldı. Bu, çox gözəl hadisədir, böyük tarixi hadisədir. Bu hadisə münasibətilə sizi, Dövlət Neft Şirkətinin bütün əməkdaşlarını və bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm. Çünki bu hadisə Azərbaycanın neft–qaz sənayesinin uğurla inkişaf etdirilməsi üçün çox mühüm rol oynayacaqdır.

Ötən əsrin 90–cı illərinin əvvəllərində ulu öndər Heydər Əliyev tərəfindən başlanmış yeni neft strategiyamız bu sahədə köklü dönüşün yaranmasına gətirib çıxardı. "Əsrin kontrakt"ının, "Şahdəniz" yatağı üzrə kontraktın imzalanması və digər addımlar bizə imkan verdi ki, neft–qaz sahəsində özümüzə məxsus olan mövqelərimizi bərpa edək. Biz mövqeyimizi nəinki bərpa edə, hətta onu böyük dərəcədə möhkəmləndirə bilmişik. Bir daha demək istəyirəm ki, Azərbaycan bu gün dünya enerji xəritəsində özünəməxsus rola malikdir. Mövqelərimiz möhkəmlənir və tərəfimizdən irəli sürülmüş təşəbbüslər bu sahədə yeni vəziyyətin yaranmasına gətirib çıxarmışdır.

"Ümid" yatağının aşkarlanması xüsusi məna daşıyır. Bu onu göstərir ki, Azərbaycanda neft–qaz sahəsində bütün işlər uğurla aparılır… Bu, bir də onu göstərir ki, Azərbaycan çox böyük qaz ölkəsinə çevrilibdir. Biz dünyada neft ölkəsi kimi şöhrət qazanmışıq. Növbəti mərhələdə — XXI əsrdə Azərbaycan dünyada qaz ölkəsi kimi öz sözünü deyəcək və artıq deyir".

Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev görüşdə çıxış edərək neftçilərin əməyinə verdiyi qiymətə görə cənab Prezidentə təşəkkürünü bildirdi.

Mən isə dövlətimizin başçısına Xəzərin Azərbaycan sektorundakı bir sıra təbii qaz yataqlarının texniki–iqtisadi göstəriciləri haqqında məlumat verdim.

İlkin hesablamalara görə "Ümid" strukturunun 200 milyard kubmetr qaz və 40 milyon ton kondensat ehtiyatı vardır.

2011–ci ilin iyul ayında Ümid–1 özülündən layihə dərinliyi 6500 metr olan 10 nömrəli kəşfiyyat quyusunun qazılmasına başlandı və 2012–ci il iyun ayının 8–də quyu perforasiya edilərək mənimsənilmişdir. Quyudan quyuağzı təzyiq 600 atmosfer, 10 millimetrlik ştuserlə gün ərzində 700 milyon kubmetr qaz və 100 kubmetr kondensat alınmışdır.

Hazırda özüldən layihə dərinliyi 6550 metr olan 12 nömrəli quyu qazılır. Artıq quyunun dərinliyi 6000 metrə çatdırılıb, qazma işi davam etdirilir. "Ümid" yatağının kəşfindən sonra daha bir mühüm hadisə baş verdi. 2011–ci ilin sentyabrında Xəzərin "Abşeron" blokunda iri qaz–kondensat yatağı kəşf edildi. Cənubi Xəzər neftli–qazlı hövzəsinin Abşeron arxipelaqında, dənizin dərinliyi 473,5 metr olan sahədə bu yatağın kəşf olunması Fransanın "Total" və "Gas de France" şirkətləri ilə ARDNŞ arasında hasilatın pay bölgüsü sazişi çərçivəsində görülmüş birgə işin nəticəsidir.

2011–ci il sentyabr ayının 9–da Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevlə görüş zamanı ARDNŞ–in və "Total" şirkətinin rəhbərliyi Xəzərin Azərbaycan sektorunda iri qaz–kondensat yatağı olan Abşeron yatağının kəşf edildiyini bildirdilər.

Görüşdə Prezident İlham Əliyev Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Abşeron blokunda iri qaz–kondensat yatağının kəşf edilməsini ölkəmizin həyatında əlamətdar hadisə kimi dəyərləndirdi. Dövlətimizin başçısı ölkəmizdə yeni qaz–kondensat yatağının kəşf olunmasının dünyanın ən böyük qaz istehsal edən ölkələri sırasında Azərbaycanın mövqeyini daha da möhkəmləndirəcəyini vurğuladı. O dedi: "Abşeron qaz–kondensat yatağının kəşfi bizə imkan verəcək ki, öz qaz strategiyamızı daha da inamla irəliyə aparaq, Azərbaycan qaz ixrac edən ölkə kimi dünyada daha da tanıtdıraq, Azərbaycan xalqının maraqlarını təmin edək".

"Total" şirkətinin baş vitse–prezidenti Maykl Borrell Azərbaycanla bundan sonra da uzunmüddətli əməkdaşlıq etmək ümidində olduğunu bildirdi.

Mən Abşeron strukturunun aşkar edilməsinin tarixi, yatağın kəşfinə qədər görülmüş işlər və yeni qaz–kondensat yatağının texniki–iqtisadi göstəriciləri barədə cənab Prezidentə məlumat verdim, yatağın geoloji–geofiziki xüsusiyyətlərini və perspektivliyini şərh etdim.

ARDNŞ–in ilkin hesablamalarına görə "Abşeron" yatağının ehtimal olunan karbohidrogen ehtiyatlar 350 milyard kubmetr qaz və 45 milyon ton kondensat həcmindədir.

Beləliklə, "Azəri–Çıraq–Günəşli" yatağında məhsuldar qatın alt çöküntülərinin qaz ehtiyatının 250 milyard kubmetr həcmində qiymətləndirilməsini nəzərə almaqla bu günə respublikamızda təsdiq olunmuş qaz ehtiyatları 2 trilyon 550 milyard kubmetrdir.

Gələcəkdə "Babək", "Naxçıvan", "Zəfər", "Məşəl", "Şəfəq", "Asiman" strukturlarında aparılan kəşfiyyat işləri bu ehtiyatları daha da artıracaq.

Respublikada neft və qaz hasilatının artırılması məqsədilə mövcud infrastrukturun modernləşdirilməsinə xüsusi fikir verilir. Çünki mövcud qazma qurğuları Xəzər dənizi akvatoriyasının çox dərin yerlərində quyular qazmağa imkan vermir. Buna görə də qarşıda duran məsələlərin gerçəkləşdirilməsi üçün dənizin 1000 metrədək dərinliklərində 8–10 min metr qazma gücünə malik 4 ədəd son nəsil yeni üzən qazma qurğusunun inşa edilməsi qərara alınmışdır. Bu, böyük investisiya tutumlu layihədir və ölkə iqtisadiyyatının inkişafı nöqteyi–nəzərindən mühüm önəm daşıyır. "Ümid" və "Abşeron" yataqlarında qazmanın intensivliyinin artırılması, yaxın illərdə "Babək", "Naxçıvan", "Zəfər–Məşəl" perspektiv strukturlarında kəşfiyyat işlərinə başlanması bu layihənin həyata keçirilməsi ilə bağlıdır.

Ötən il Prezident İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Trans–Anadolu qaz boru kəmərinin inşasına dair sənədlər imzalandı. Türkiyə və Avropa istehlakçılarının Azərbaycan qazı ilə təchiz olunması məqsədi ilə reallaşdırılacaq TANAP layihəsi Avropa Birliyi ölkələrinin çoxdan gözlədiyi "Cənub enerji dəhlizi"nin əsasını təşkil edəcək. Artıq müvafiq sazişlər Azərbaycan və Türkiyə parlamentləri tərəfindən ratifikasiya olunmuş və hər iki ölkədə Qanun statusu almışdır. Beynəlxalq birlik TANAP layihəsinə ciddi maraq göstərir və onu dəstəkləyir. Kəmərin ilkin ötürücülük qabiliyyəti ildə 16 milyard kubmetr həcmində planlaşdırılır, gələcəkdə bu göstəricinin artırılması da nəzərdə tutulur.

Daha bir məsələ: məlumdur ki, ölkəmizdə neft, qaz emalı və neft kimyası kompleksi fiziki və mənəvi cəhətdən köhnəlmişdir. Bunu nəzərə alaraq, müasir standartlara cavab verən Neft–Qaz Emalı və Neft–Kimya Kompleksinin inşa edilməsinə hazırlıq görülür. Bu, Azərbaycanın tarixində ən nəhəng sənaye layihəsidir və ölkənin gələcək inkişafına etibarlı təminat verəcəkdir.

ARDNŞ Türkiyədə də neft emalı və neft–kimya sahələrinin inkişafı baxımından mühüm layihələr həyata keçirir. Türkiyədə səhmlərinin 61,32 faizi şirkətimizə məxsus olan "Petkim"in xammalla təchizatını təmin etmək məqsədilə yeni neft emalı zavodunun tikintisinə başlanmışdır. Oradakı liman da genişləndirilir və tezliklə o, Türkiyənin ən böyük limanı olacaqdır. "Petkim"in enerji təminatını yaxşılaşdırmaq məqsədi ilə yeni elektrik stansiyasının tikintisinə hazırlıq gedir.

Bu yaxınlarda Sumqayıtda karbamid zavodunun tikintisinə başlanılacaqdır. Bu zavod ölkəmizin ərzaq təhlükəsizliyinin təminatına neftçilərin mühüm töhfəsi olacaqdır. Regionda azot gübrəsinə ehtiyacı nəzərə alaraq, belə bir zavodun Gürcüstanda da inşa edilməsi nəzərdə tutulur.

Bakıda gəmiqayırma zavodunun tikintisi uğurla davam etdirilir. Bu, Xəzər dənizində analoqu olmayan bir zavoddur və Xəzər Dəniz Neft Donanmasının gəmi parkının təzələnməsi, Azərbaycanın Hərbi Dəniz Qüvvələrinin, Xəzər Gəmiçiliyinin, Fövqəladə Hallar Nazirliyinin, Xəzər hövzəsindəki ölkələrin müasir gəmilərlə təmin olunmasında mühüm əhəmiyyət kəsb edəcəkdir. Şirkətimiz İsveçrədə, Türkiyədə, Rumıniyada, Birləşmiş Ərəb Əmirliklərində, Ukraynada, Gürcüstanda uğurlu biznes fəaliyyətini də davam etdirir.

**Bütün bunlar – böyük Azərbaycan nefti uğrunda gərgin mübarizənin gedişində əldə edilmiş nailiyyətlər, həyata keçirilmiş beynəlxalq və regional layihələr və onların nəticələri ümummilli liderimiz Heydər Əliyevin müdrikliklə müəyyən etdiyi, onun layiqli davamçısı olan cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə həyata keçirilən yeni neft strategiyasının həyatiliyini, xalqımız və dövlətimiz üçün misilsiz əhəmiyyətini parlaq şəkildə nümayiş etdirir.**

Bir daha qeyd etmək istəyirəm ki, ümummilli liderimiz Heydər Əliyevin, ümumiyyətlə, respublikamızın, o cümlədən neft sənayesinin inkişafı üçün gördüyü işlər, müəyyən etdiyi yeni neft strategiyası bundan sonra da Azərbaycanın möhkəm təməl üzərində inkişafını təmin edəcək və biz neftçilər bu vəzifənin həyata keçirilməsi üçün əlimizdən gələni əsirgəməyəcəyik.

**"Respublika".-**2013.-19 aprel.-N 81.-S.4.

# HEYDƏR ƏLİYEV VƏ HƏMKARLAR İTTİFAQLARI

**Vəkil HƏSƏNOV,**
tarix elmləri doktoru

**Dünya şöhrətli siyasətçi Heydər Əliyevin adı ilə Azərbaycan tarixinin çox mühüm dövrləri bağlıdır. Onun Azərbaycana rəhbərliyi dövründə respublikamızın ictimai- siyasi, iqtisadi və mədəni həyatında, o cümlədən həmkarlar ittifaqlarının fəaliyyətində əsaslı irəliləyişlər baş vermişdir.**

H.Əliyevin Azərbaycan KP MK-nın birinci katibi işlədiyi zamanlar (1969-1982-ci illər) respublika həmkarlar ittifaqı mərkəzinin III qurultayı olmuşdur. Qurultayların hər üçündə şəxsən özü iştirak etmiş, geniş nitq söyləmişdir.

1980-ci il oktyabrın 4-də Azərbaycanda həmkarlar ittifaqlarının yaranmasının 60 illiyi münasibətilə (bu tarix ölkəmizdə sovet hakimiyyətinin qurulduğu ildən hesablanıb) keçirilmiş təntənəli yığıncaqda Heydər Əliyev çıxış etmiş, Azərbaycan həmkarlar ittifaqlarına Azərbaycan KP MK-nın təbrikini oxumuşdu. Həmkarlar ittifaqı işçilərinin və fəallarının bir qrupuna Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanını təqdim etmişdi.

1982-ci il fevralın 5-6-da Azərbaycan həmkarlar ittifaqlarının XVI qurultayında Heydər Əliyev "İdarəetmə məktəbi, təsərrüfatçılıq məktəbi, kommunizm məktəbi" mövzusunda geniş nitq söyləmişdi. O, çıxışında bildirmişdi ki, "öz sıralarında 2 mln. 200 min adamı birləşdirən Azərbaycan həmkarlar ittifaqlarının başlıca vəzifələrindən biri əmək adamlarının hüquqlarını və mənafeyini qorumaq, istehsalatda da demokratiya prinsiplərini inkişaf etdirməkdir".

Azərbaycan müstəqilliyə nail olduqdan sonra həmkarlar ittifaqlarının işində də əsaslı dəyişikliklər baş verdi. Müstəqillik dövründə həmkarlar ittifaqlarının əməli fəaliyyətində Heydər Əliyevin diqqət və qayğısı mühüm rol oynamışdır.

1993-cü ilin yayında respublikada vəziyyət gərgin olaraq qalırdı. Həmin ilin 4 iyun hadisələri vəziyyəti daha da pisləşdirmişdi. Azərbaycan parçalanmaq, bir ölkə kimi, bir dövlət kimi məhv olmaq təhlükəsi qarşısında idi. Azərbaycanda vətəndaş müharibəsi başlamışdı. Heydər Əliyevin 1993-cü ilin 15 iyununda Azərbaycanda siyasi hakimiyyətə xilaskar missiyalı qayıdışı ölkəmizi parçalanmaqdan, müstəqilliyimizi, dövlətçiliyimizi itirmək təhlükəsindən xilas etdi. Azərbaycanda başlamış və çox təhlükəli xarakter alan separatçılıq hərəkətlərinin qarşısı alındı, Azərbaycan tarixinin milli qurtuluş və həqiqi müstəqillik mərhələsi başlandı.

1991-1992-ci illərdə respublikada baş verən proseslər həmkarlar ittifaqlarının işinə də mənfi təsir göstərmiş, bu təşkilatlarıda parçalamağa meyillər artmışdı. 1993-cü il iyulun 17-də AHİK-in İcraiyyə Komitəsinin "Həmkarlar ittifaqı üzvlərinə, bütün zəhmətkeşlərə" müraciəti dərc olundu. Müraciətdə deyilirdi: "Dövlətimiz üçün çətin, məsuliyyətli bir vaxtda müxtəlif qrupların qeyri-siyasi qarşıdurması, iqtisadiyyatın və əhalinin həyat səviyyəsinin getdikcə aşağı düşməsi şəraitində sizə müraciət edirik. İşsizlik, infilyasiya, qıtlıq, dövlət tərəfindən qayğısızlıq, minimum əməkhaqqının minimum istehlak büdcəsindən dəfələrlə aşağı olması bizi daim narahat edir. Sosial cəhətdən aztəminatlı adamların - qaçqınların, çoxuşaqlı ailələrin, şəhid ailələrinin bütün problemlərinin tədricən həll olunması üçün var qüvvəmizlə çalışırıq.Təəssüf hissi ilə qeyd etməliyik ki, cəmiyyətdə olan qarşıdurma, parçalanma, həmkarlar ittifaqlarına sirayət etmişdir".

1993-cü ildə Azərbaycanın cənub bölgəsində gərgin vəziyyət yaranmışdı. Heydər Əliyevin respublikanın bütövlüyünü, dövlətçiliyi qorumaq sahəsində yeritdiyi siyasəti müdafiə edən AHİK-in qəbul etdiyi"Azərbaycan Respublikasının cənub regionunda yaranmış ictimai-siyasi vəziyyətlə əlaqədar bəyanat"ında deyilirdi: "AHİK, bu çoxsaylı təşkilatın minlərlə üzvü respublikanın cənubunda gedən hadisələri böyük təşviş və həyəcan hissi ilə izləyir. Qeyd edirik ki, son vaxtlar Azərbaycanda bir sıra qüvvələr öz siyasi məqsədlərini həyata keçirmək üçün vətəndaşların sosial-iqtisadi hüquqlarını qorumaq bəhanəsi altında millətçi, separatçı hərəkata başlamışlar. Azərbaycan həmkarlar ittifaqları birmənalı qeyd edir ki, bu cür hərəkat siyasi avanturalardan başqa bir şey olmayıb, vətəndaşların sosial-iqtisadi hüquqlarının daha da pozulmasına, Azərbaycanda həmkarlar ittifaqları qüvvələrinin parçalanmasına, zəhmətkeşləri öz haqlı tələblərini müdafiə etmək yolundan yayındırmağa aparır.

Bədnam Qarabağ məsələsi də məhz bu ideya ilə pərdələnmişdi. Lakin son 5-6 illik hadisələr bir daha sübut edir ki, bu yol vətəndaşların sosial-iqtisadi hüquqlarının həyata keçirilməsində məqbul yol deyil, əksinə belə problemlərin daha da dərinləşməsinə gətirib çıxarır. AHİK respublikanın cənub regionunda yaşayan üzvlərini onların hüquqlarından siyasi alver məqsədi ilə istifadə etmək istəyənlərə buna imkan verməməyə və belələrinə qarşı ciddi, barışmaz mübarizəyə çağırır.

Bu gün belə avantürist ideyaların ortaya atılması yalnız xalqın parçalanmasına, böhranın dərinləşməsinə, hərbi uğursuzluqların davam etməsinə, ən başlıcası isə, respublikanın qardaş xalqları arasında milli münasibətlərin pozulmasına xidmət edir. Azərbaycan zəhmətkeşlərini sayıq olmağa, siyasi oyunçuların əlində alət olmağa yol verməməyə çağırırıq".

1993-cü ildə Heydər Əliyevin AR-nın prezidentliyinə namizədliyini AHİK də dəstəkləmişdi. 1993-cü ilin sentyabrında AHİK-in İcraiyyə Komitəsinin iclasında respublikamızda prezident seçkiləri haqda məsələ müzakirə olunmuş, AHİK prezident seçkiləri ilə əlaqədar olaraq AR prezidentliyinə Heydər Əliyevin namizədliyinin müdafiə olunması barədə həmkarlar ittifaqları orqanlarının təkliflərini bəyənmiş və sahə həmkarlar ittifaqı respublika komitələrinə müvafiq tədbirlərin həyata keçirilməsini tövsiyə etmişdi. Heydər Əliyevin Azərbaycan Respublikasının prezidenti seçilməsi münasibətilə AHİK sədri S.Mehbalıyev 1993-cü il oktyabrın 10-da Prezidentə təbrik məktubu göndərmişdi.

Azərbaycan Respublikasının Milli Məclisi 1994-cü il fevralın 24-də "Həmkarlar ittifaqları haqqında" qanunu qəbul etmişdir. Bu qanun Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev tərəfindən təsdiq edilmişdir. "Həmkarlar ittifaqları haqqında" qanunun qəbul edilməsi bu təşkilatların səmərəli fəaliyyət göstərməsi üçün hüquqi baza yaradılmasını təmin etdi. Bu qanun öz dəyərinə, məzmununa görə təkcə ölkə daxilində deyil, hətta MDB məkanında bir çoxlarına demokratiyanı sözdə yox, işdə dəstəkləməyin parlaq nümunəsi oldu. Azərbaycanda bu qanunla yanaşı, əməkçilərin sosial müdafiəsinə yönəlmiş çoxsaylı digər hüquqi-normativ aktların qəbulu, Beynəlxalq Əmək Təşkilatının əsas konvensiyalarının Milli Məclis tərəfindən ratifikasiyası ittifaqların normal işləməsinə geniş imkanlar açdı.1994-cü il 5 oktyabr dövlət çevrilişi cəhdləri ilə bağlı AHİK Prezident Heydər Əliyevin xalqa müraciətinə həmrəyliklə cavab vermişdir. Bu hadisələrlə bağlı AHİK aparatının işçiləri "Dövlətçiliyimizi qorumaq naminə" adlı müraciət qəbul etmişdi. Müraciətdə respublikanın paytaxtında baş vermiş hadisələr dövlətçiliyimizə, müstəqilliyimizə zərər vuran hadisə kimi pislənmişdi.

Daxili siyasətdə olduğu kimi Azərbaycan həmkarlar ittifaqları həmişə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin uğurlu xarici siyasətini də dəstəkləmişdir. 1997-ci ilin avqustunda Heydər Əliyevin ABŞ-a səfəri ilə əlaqədar Azərbaycan həmkarlar ittifaqları fəalları 27 avqust 1997-ci il tarixində keçirilmiş iclasında Heydər Əliyev cənablarına müraciət qəbul etmiş, onun xarici siyasət fəaliyyətini dəstəklədiklərini bildirmişlər.

Heydər Əliyev Azərbaycan həmkarlar ittifaqlarının zəhmətkeşlərin əmək və sosial mənafelərini müdafiə etmək sahəsində fəaliyyətini yüksək qiymətləndirmişdir. AHİK-in 1998-ci ilin fevralında keçirilmiş birinci qurultayının iştirakçılarına müraciətində Heydər Əliyev yazırdı: "Əmin olduğumu bildirmək istəyirəm ki, həmkarlar təşkilatları öz işini yeniləşən cəmiyyətimizin tələblərinə uyğun quracaq, Azərbaycanda müstəqil, demokratik, dünyəvi dövlət quruculuğunda yaxından iştirak edəcəkdir".

1998-ci il mayın 18-də Heydər Əliyev AHİK-in sədri S.Mehbalıyevi qəbul etmişdi. O, Heydər Əliyevi ad günü münasibətilə təbrik etmiş və həmkarlar ittifaqları üzvlərinin fikrini ifadə edərək demişdir ki, "xalqımızın xoşbəxtliyi ondadır ki, indiki keçid dövründə, bu tarixi mərhələdə dövlətimizin Sizin kimi təcrübəli, müdrik rəhbəri vardır. Sizin xidmətləriniz nəticəsində respublikada ictimai-siyasi sabitlik yaranmış, beynəlxalq aləmdə Azərbaycanın nüfuzu, demokratik imici yüksəlmiş, ölkəmizin daxilində iqtisadi islahatlar geniş vüsət almış, neft müqavilələrinin imzalanması və həyata keçirilməsi sahəsində uğurlar qazanılmışdır".

1998-ci il prezident seçkilərində AHİK Heydər Əliyevin namizədliyini müdafiə etmişdi. Həmin il iyul ayının 8-də AHİK-də seçicilərin 105 nəfərdən ibarət təşəbbüs qrupu yaradılmışdı. İclasda Heydər Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi təklifi verilmiş, S. Mehbalıyev seçicilərin təşəbbüs qrupunun səlahiyyətli nümayəndəsi seçilmişdi.

Heydər Əliyevin uğurlu xarici siyasəti türk dünyasında yüksək qiymətləndirilmiş, 1999-cu ildə ona türk dünyasının ən mötəbər mükafatı - Beynəlxalq Atatürk Sülh mükafatı verilmişdi. Bu hadisə həmkarlar ittifaqı təşkilatı üzvləri tərəfindən böyük rəğbətlə qarşılanmışdı. Bununla əlaqədar, 1999-cu il noyabrın 5-də AHİK-də respublikada fəaliyyət göstərən ictimai təşkilatların nümayəndələrinin toplantısı keçirilmişdi. Ölkə başçısı bu mükafata daxili və xarici aləmdə, eləcə də Qafqazda sülh uğrunda apardığı müstəqil, cəsarətli və inamlı siyasətə görə layiq görülmüşdü. Toplantı iştirakçıları Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevə müraciət qəbul etmişdilər.

2003-cü il fevralın 5-6-da AHİK-in II qurultayının iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təbrik məktubunda deyilirdi ki, həmkarlar ittifaqları dövrün tələblərinə uyğun olaraq öz fəaliyyətini yenidən təşkil edəcək, Azərbaycan Respublikasında demokratik, azad cəmiyyətin, insanların firavan həyatının bərqərar olması yolunda gələcəkdə də ön sıralarda addımlayacaqdır. AHİK-in II qurultay nümayəndələri Heydər Əliyevə müraciət qəbul etmiş, həmkarlar ittifaqlarına göstərdiyi qayğı və diqqətə görə öz

minnətdarlıqlarını bildirmişdilər. Fevralın 6-da Heydər Əliyev Prezident sarayında AHİK-in II qurultayında iştirak edən xarici həmkarlar ittifaqları təşkilatlarının nümayəndələrini qəbul etmiş və görüşdə "Azərbaycan həmkarlar ittifaqlarının qurultayını ölkənin ictimai-siyasi həyatında mühüm hadisə adlandırmışdı".

**"Ülfət".-**2013.-20 aprel.-№14.-S.2.

# HÜQUQİ DÖVLƏT İDEYASINI GERÇƏKLİYƏ ÇEVİRƏN LİDER

**Zahid CƏFƏROV,**
hüquq elmləri doktoru,
BDU-nun Əmək və ekologiya hüququ kafedrasının dosenti

**İstənilən yeni müstəqil dövlətin milli inkişaf yolunun başlanğıcdan düzgün müəyyənləşdirilməsi onun mövcudluğunun qorunub saxlanılması və gələcək tərəqqisi baxımından vacib amildir. Dövlətçiliyin ideoloji-siyasi və iqtisadi əsaslarının elmi təməl üzərində qurulması, cəmiyyətin potensial imkanlarının milli intibah prosesinə məqsədyönlü şəkildə cəlb olunması son nəticədə xalqları davamlı, sabit inkişaf yoluna çıxararaq dövrün ağır sınaqlarından, təbəddülatlarından qoruyur. 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında dövlətçiliyin iqtisadi, siyasi, hüquqi və ideoloji əsaslarını sarsıdan bir çox sosial-mənəvi problemlər də məhz milli strategiyanın olmaması üzündən meydana çıxmışdı.**

1991-ci ildən 1993-cü ilin iyun ayınadək respublikanın üzləşdiyi böyük problemlər, ilk növbədə, xalqın dəstəklədiyi legitim hakimiyyətin, eyni zamanda, yeni ictimai-iqtisadi formasiyada dövlətin gələcək inkişaf yolunu düzgün müəyyənləşdirə biləcək qətiyyətli və müdrik siyasi rəhbərin olmaması ilə bağlı idi. Hələ 1991-ci ilin 18 oktyabrında qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın 12-ci maddəsində Azərbaycan xalqının müstəqil, dünyəvi, demokratik, hüquqi və unitar dövlət yaratma yolunu tutması fikri əksini tapmışdı. Konstitusiya Aktında hakimiyyətin və bütün təbii sərvətlərin xalqa mənsubluğu, mülkiyyətin bütün formalarının bərabərliyi, vətəndaşların seçki hüququnun, çoxpartiyalı sistemin təminatı, habelə insan və vətəndaş hüquq və azadlıqlarının ümumi prinsipləri də rəsmən elan edilmişdi. Lakin 1991-1993-cü illərdə bir tərəfdən ictimai-siyasi sabitliyin, qanunçuluğun kövrək xarakter daşıması, xalqla hakimiyyət arasında mənəvi-siyasi böhranın dərinləşməsi, qanunsuz silahlı qüvvələrin baş alıb getməsi, digər tərəfdənsə iqtisadi tənəzzülün dərinləşməsi bu məqsədlərin praktik surətdə gerçəkləşməsinə imkan verməmişdi.

İstiqlaliyyətini bərpa etmiş Azərbaycanın ilk iki ildə üzləşdiyi fəlakət və sarsıntılar, sosial-iqtisadi böhran, xaos və anarxiya mühiti təsdiqlədi ki, müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. 1991-1993-cü illərdə respublikamız de-yure müstəqil sayılsa da, əslində, bu müstəqillik formal xarakter daşımış, xalqımız ədalətli və sivil dövlətdə yaşamaq arzusunu tam mənada gerçəkləşdirə bilməmişdi. Həmin illərdə Azərbaycanda hakimiyyətdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi maneəyə çevrilməklə yanaşı, daxili böhranın, vətəndaş itaətsizliyinin, xaos və anarxiyanın yaranmasına rəvac vermiş, qanunçuluğun və hüquq qaydalarının təminatı, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun, ən nəhayət, ictimai asayişin qorunması sahəsində əsaslı problemlər yaratmışdı.

1993-cü ilin iyununda kifayət qədər mürəkkəb siyasi şəraitdə xalqın təkidli çağırışına biganə qalmayaraq Naxçıvandan Bakıya dönən, vəziyyəti sabitləşdirərək ölkəyə rəhbərlik missiyasını inamla həyata keçirməyə başlayan ulu öndər Heydər Əliyev qısa müddətdə ictimai-siyasi sabitliyin, qanunçuluğun, hüquq qaydalarının möhkəmləndirilməsinə nail olmuş, sistemli surətdə hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyəti istiqamətində mühüm addımlar atmışdır. 1993-cü ilin 15 iyununda Heydər Əliyevin əvvəlcə Azərbaycan Ali Sovetinin Sədri seçilməsi qanunverici orqanın cəmiyyətdəki nüfuzunu qaldırmış, onun fəaliyyətinin təkmilləşməsinə, ölkənin ictimai-siyasi həyatının sabitləşməsinə, habelə milli parlamentarizm ənənələrinin inkişafına böyük zəmin yaratmışdır. Ali Sovetin 15 iyun 1993-cü il tarixli iclasındakı çıxışında ulu öndər Heydər Əliyev ona göstərilən etimadı doğrultmağa çalışacağını vurğulamışdır: "Sizi əmin edirəm ki, bütün imkanlardan istifadə edib bu böyük vəzifəni, ağır bir yükü aparmağa çalışacağam və bu vəzifənin ləyaqətlə yerinə yetirilməsinə səy edəcəyəm. Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını vəhdət tutaraq əlimdən gələni edəcəyəm".

Ulu öndər ilk gündən milli qanunvericiliyin yeni dövrün tələblərinə uyğunlaşdırılması, cəmiyyət həyatı üçün faydalı olan bir sıra yeni qanunların qəbulu prosesini də diqqət mərkəzində saxlamışdır. Təsadüfi deyildir ki, Heydər Əliyevin 1993-cü il iyunun 15-dən oktyabrın 3-dək Azərbaycan Respublikası Ali Sovetinə rəhbərlik etdiyi dövr Azərbaycan parlamentarizmi tarixində keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilir. Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişləndiyi, hərbi əməliyyatların şiddətləndiyi bir zamanda Heydər Əliyev Milli Məclisdə, ilk növbədə, müdafiə sisteminin hüquqi bazasının təkmilləşdirilməsinə, nizami ordu quruculuğuna xidmət edən qanunların hazırlanmasını və qəbulunu vacib saymışdır. Cəmi 4 ay müddətində

120-yədək qanun və qərarın qəbulu ulu öndərin parlamentin spikeri kimi səmərəli fəaliyyətini bir daha təsdiqləyir.

1993-cü ilin 10 oktyabrında xalqın böyük dəstəyini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən ulu öndər Heydər Əliyev qanunvericilik təşəbbüsü hüququndan istifadə etməklə, bu istiqamətdə əlavə tədbirlərin həyata keçirilməsini də təmin etmişdir. Ümummilli liderin ölkədə hüquq qaydalarının möhkəmləndirilməsi istiqamətində atdığı ilk addımlardan biri məhz 9 avqust 1994-cü il tarixli "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında" fərmanı olmuşdur. Həmin fərmanla cinayətkarlığa qarşı mübarizə tədbirləri daha da gücləndirilmiş, hüquq-mühafizə orqanlarının bu istiqamətdə uzunmüddətli dövr üçün fəaliyyət proqramı müəyyənləşdirilmişdir. O dövr üçün səciyyəvi olan bir sıra neqativ hallar fərmanda geniş əksini tapmış, onların aradan qaldırılması üçün daxili işlər, milli təhlükəsizlik və prokurorluq orqanlarının qarşısına mühüm vəzifələr qoyulmuş, habelə cinayətkarlıqla mübarizənin təkmilləşdirilməsi məqsədilə yeni strukturların yaradılması vacibliyi önə çəkilmişdir.

Azərbaycanda hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına doğru uzanan mürəkkəb prosesin məhz 1995-ci il 12 noyabr tarixində ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyaya əsaslandığını xüsusi vurğulamağa ehtiyac yoxdur. SSRİ-nin süqutu ilə bağlı qlobal proseslərin tərkib hissəsi olaraq beynəlxalq hüququn müstəqil subyektinə çevrilən Azərbaycan Respublikasında demokratik cəmiyyətin atributu olan, vətəndaş cəmiyyətinin bərqərar edilməsini, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət quruculuğunu, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin edən yeni milli Konstitusiyaya ehtiyac duyulurdu. Azərbaycanın yeni Konstitusiyasının hazırlanması üçün hələ 1991-ci il fevralın 9-da keçmiş Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə 74 nəfərdən ibarət komissiya yaradılsa da, bu istiqamətdə faktiki olaraq uzun müddət heç bir iş görülməmişdi. 1993-1994-cü illərdə ölkədə ictimai-siyasi vəziyyətin gərginləşməsi, bir sıra təxribatlar, dövlət çevrilişi cəhdləri Konstitusiyanın qəbulu istiqamətində konkret addımlar atmağa imkan vermirdi. Dövlətçiliyə qarşı yönəlmiş qəsdlərin qarşısı alındıqdan sonra 1995-ci ilin iyul ayında Milli Məclisin iclasında ümummilli lider Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının Konstitusiyasını hazırlayan dövlət komissiyası təşkil edilmişdir. Görkəmli alimlərin, hüquqşünasların, mütəxəssislərin və rəhbər işçilərin daxil edildiyi bu komissiya 1995-ci il iyul ayının 5-də ilk iclasını keçirmişdir. Komissiyanın iclasında geniş nitq söyləyən ümummilli lider Heydər Əliyev dəyərli tövsiyələrini, məsləhətlərini vermişdir: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasında demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü, - ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır" - deyən ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının ilk Konstitusiyasının hazırlanmasında həm Azərbaycanın tarixi keçmişinin milli dəyərlərindən, həm də ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin təcrübəsindən istifadə edilməsini mühüm vəzifə kimi irəli sürmüşdür.

Ümummilli liderin rəhbərliyi altında hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır. Konstitusiyanın 158 maddəsindən 48-nin, yəni, üçdə birinin sırf insan hüquq və azadlıqları ilə bağlı olması ulu öndər Heydər Əliyevin demokratik dəyərlərə sadiqliyini bir daha təsdiqləyir. Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında BMT-nin 1948-ci il 10 dekabr tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və digər beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquq və azadlıqları tam və əhatəli şəkildə təsbit olunmuşdur. Keçmiş sovet konstitusiyalarından fərqli olaraq, müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan etmişdir. Konstitusiya bu deklarativ norma ilə kifayətlənməyərək, başqa bir maddədə insan və vətəndaş hüquqlarını, azadlıqlarını gözləməyi və qorumağı qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının üzərinə vəzifə olaraq qoymuşdur.

Konstitusiyanın qəbulundan sonra ümummilli lider Heydər Əliyev hüquq-mühafizə orqanlarının fəaliyyətinin yeni dövrün tələblərinə uyğunlaşdırılması üçün bir sıra mükəmməl qanunvericilik aktlarının qəbulunu təmin etmişdir. Bu məqsədlə 21 fevral 1996-cı il tarixdə Hüquq islahat komissiyası yaradılmış, Avropa Şurasının tövsiyələri nəzərə alınmaqla hazırlanmış "Konstitusiya məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış tədbirləri haqqında", "Notariat haqqında" və s. qanunların qəbulu məhkəmə-hüquq islahatlarının məntiqi yekunu olmuşdur.

Ötən əsrin 90-cı illərinin sonlarına doğru ulu öndər Heydər Əliyevin ən inamlı və prinsipial addımlarından biri ölkədə söz, fikir və mətbuat azadlığının tam təmin edilməsidir. Ümummilli liderin 1998-ci il 6 avqust tarixli

"Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmanı ilə kütləvi informasiya vasitələri üzərində senzura ləğv olunmuş, bu sahənin inkişafını stimullaşdıran bir sıra zəruri tədbirlər həyata keçirilmişdir.

1996-cı il iyunun 28-dən etibarən Azərbaycan Respublikasının Avropa Şurasında "xüsusi qonaq statusu"nda iştirakının təmin olunması milli qanunvericiliyin Avropa standartlarına yüksəlməsinə, təşkilatla əlaqə və dialoqun intensivləşməsinə zəmin yaratmışdır. Eyni zamanda, ulu öndər Heydər Əliyevin 8 iyul 1996-cı il tarixli "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında", 20 yanvar 1998-ci il tarixli "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında", habelə 14 may 1999-cu il tarixli "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin təmin edilməsi haqqında" sərəncamları Avropa Şurasına üzvlük üçün tələb olunan hüquqi-siyasi prosedurların sürətlə keçilməsinin işlək mexanizmlərini hazırlamağa imkan vermişdir.

Ulu öndər Heydər Əliyev Avropa Şurasına üzvlük naminə riskli və prinsipial addımlar atmaqdan belə çəkinməmişdir. Ulu öndərin 4 may 1995-ci il tarixli fərmanı ilə əfvetmə institutunun bərpası və Prezident yanında Əfv komissiyasının yaradılması, 1995-ci ildən ölüm hökmü cəzası üzərində moratoriumun qoyulması, 1998-ci ilin 10 fevralında isə bu cəzanın tam ləğv edilməsi deyilənləri bir daha təsdiqləyir. Şəffaf və demokratik əsasda fəaliyyət göstərən komissiyada ictimaiyyətin müxtəlif təbəqələrinin təmsilçiliyinə lazımi şərait yaradılmış, əfv fərmanlarının imzalanması və məhkumların bağışlanması müsbət ənənəyə çevrilmişdir.

Məlumdur ki, ölüm hökmünün ləğvi Avropa Şurasının üzv dövlətlər qarşısında müəyyənləşdirdiyi əsas tələblərdən biridir. Yaradılışın ali varlığı, əşrəfi sayılan insanın hər hansı səbəbdən edam edilməsi humanizm və insanpərvərlik prinsipləri baxımından qəbul olunmur. Ölüm hökmünün tətbiqi cinayət törətmiş məhkumun tərbiyə və islah olunaraq sağlam cəmiyyətə qovuşması baxımından yolverilməz sayılır. Bu gün əksər Avropa ölkələrində, o cümlədən ABŞ-ın ondan çox ştatında ölüm cəzası tətbiq edilmir.

Azərbaycanda ölüm hökmü tam ləğv olunmazdan əvvəl cəmiyyətdə geniş ictimai müzakirəyə çıxarılmış, Avropa Şurası ilə geniş məsləhətləşmələr aparılmışdır. Ulu öndər 1998-ci il fevralın 3-də Milli Məclisə ölüm hökmünün ləğvi ilə bağlı müraciətində cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək idealları rəhbər tutmaqla ölkədə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəldiyini bildirmiş və bu tarixi bəyanatın zəruriliyini əsaslandırmışdır. Gərgin müzakirələrdən sonra Milli Məclis ölüm hökmünün ləğvi ilə bağlı ölkə Prezidentinin təklifini dəstəkləmiş, 10 fevral 1998-ci ildə belə bir tarixi qərar qəbul etmişdir.

1995-2003-cü illərdə ümummilli lider Heydər Əliyev tərəfindən 32 əfv fərmanı imzalanmış, bu fərmanlar 3104 məhkuma şamil edilmişdir. Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü əsasında Milli Məclisdə 1996-2003-cü illərdə 8 amnistiya haqqında qanun qəbul olunmuş, 21325 məhkum azadlığa buraxılmış, bu amnistiya aktları 77 mindən artıq məhkuma şamil edilmişdir. Bəzi iddiaların əksinə olaraq, bu humanist addımlar ciddi tərbiyəvi əhəmiyyət daşımış, ölkədə cinayətkarlığın səviyyəsinin daha da azalmasını təmin etmişdir.

Həyata keçirilən mütərəqqi məhkəmə-hüquq islahatlarının məntiqi nəticəsi olaraq Azərbaycan 2001-ci ilin yanvarında Avropa Şurasına tamhüquqlu üzv seçilmiş, təşkilat qarşısında götürdüyü bütün öhdəlikləri vaxtlı-vaxtında icra etmişdir. İmzalanmış çoxsaylı əfv fərmanları nəticəsində qondarma "siyasi məhbuslar" problemi qapanmış, insan hüquqlarının təminatına xidmət edən yeni qanunlar qəbul olunmuş, o cümlədən İctimai Televiziya fəaliyyətə başlamışdır. Rəsmi Bakı təşkilatın ölkənin demokratik inkişafına xidmət edən bütün mütərəqqi təklif və tövsiyələrini nəzərə alaraq, AŞ PA həmməruzəçilərinin respublikada müntəzəm monitorinq aparmasına şərait yaratmışdır. 28 dekabr 2001-ci il tarixdə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununun qəbulu, 2002-ci ildə ombudsman institutunun fəaliyyətə başlaması üçün maddi-texniki bazanın təşkili insan və vətəndaş hüquqlarının təmini istiqamətində respublikada həyata keçirilən hüquqi islahatların məntiqi davamı olmuşdur.

2001-ci il dekabrın 25-də respublikamızın qanunverici orqanı olan Milli Məclis "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasını ratifikasiya etməklə demokratik ənənələrə, ədalətə, yurisdiksiya altında olan insanlar üçün əsas hüquq və əsas azadlıqların təminatına yüksək sadiqlik nümayiş etdirmişdir. 15 aprel 2002-ci il tarixdə ratifikasiya sənədi depozitə edilmək üçün Avropa Şurasının Baş Katibinə təqdim olunmuş, bununla da, ölkə vətəndaşlarının Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etmək imkanı reallaşmışdır.

Tarixi təcrübə sübut edir ki, dövlət idarəetmə sistemində davamlı uğur və nailiyyətlərə yol açan vacib amillərdən biri də məhz siyasi varislik ənənələrinin təmin olunmasıdır. Müstəqil Azərbaycanın son 10 ildə Prezident İlham Əliyevin rəhbərliyi altında ciddi uğurlara imza atması, sürətli iqtisadi inkişaf tempi ilə dünyada

lider mövqelərini qoruyub saxlaması da məhz dövlət idarəçiliyinin uzun illər ərzində formalaşmış, təcrübədən uğurla çıxmış mükəmməl mexanizmlər əsasında həyata keçirilməsi nəticəsində gerçəkləşmişdir. Ümummilli liderin ciddi elmi təməllərə söykənən inkişaf strategiyasını inamla davam etdirən cənab İlham Əliyev qısa müddətdə Azərbaycanı Cənubi Qafqaz regionunun ən sürətlə inkişaf edən, sabit və qüdrətli dövlətinə çevirməyə müvəffəq olmuşdur.

Ölkənin dinamik sosial-iqtisadi inkişafı ölkə başçısına son illərdə insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə təminatına xidmət edən islahatları keyfiyyətcə yeni mərhələdə uğurla davam etdirmək imkanı yaratmışdır. Prezident İlham Əliyevin ictimai həyatın bütün sahələrində, o cümlədən hüquqi dövlət quruculuğu yönündə həyata keçirdiyi islahatların başlıca qayəsində məhz insan və şəxsiyyət amili dayanır. Dövlət başçısı haqlı olaraq vurğulayır ki, iqtisadi sahədə keçid dövrünü başa vuran Azərbaycan üçün vacib məsələlərdən biri də demokratikləşmə prosesini, siyasi və hüquqi islahatları cəmiyyətin inkişaf ahanginə uyğun daha da dərinləşdirmək, son nəticədə qanunun aliliyini, insan hüquqlarının prioritetliyini bütün səviyyələrdə təmin etməkdir. Son 10 ildə Azərbaycanda həyata keçirilən milli demokratik keçidin mahiyyətini də məhz iqtisadi firavanlıq müəyyənləşdirir.

Demokratik idarəetmə forması vətəndaşların sosial-siyasi, iqtisadi, mədəni rifahına, bu sahələrdə baş verən müsbət dəyişikliklərə reaksiya verməlidir. İqtisadi cəhətdən inkişaf etməmiş hansısa dövlətdə demokratikləşməyə və vətəndaş cəmiyyəti quruculuğuna yönələn cəhdlər uğursuzluqla nəticələnir, çünki tətbiqinə cəhd göstərilən mütərəqqi yeniliklər vətəndaşların real yaşayış səviyyəsi, həyat tərzi ilə uzlaşmır. Məhz bu reallıqdan çıxış edən Azərbaycan Prezidenti hər iki təmayülə vəhdət şəklində yanaşılmasını vacib sayır və ölkənin uzunmüddətli inkişafını məhz demokratik və iqtisadi islahatların paralel aparılması şərtilə real hesab edir. Dövlət başçısı dəfələrlə vurğulamışdır ki, demokratikləşmə, şəffaflıq, qanunun aliliyi olmadan inkişaf etmiş ölkə yaratmaq mümkün deyildir.

Dövlət başçısının hələ 17 iyun 2007-ci il tarixli fərmanı ilə 18 iyun tarixinin Azərbaycanda "İnsan Hüquqları Günü" elan olunması insan amilinə həssas münasibətin bariz təcəssümü kimi diqqət çəkir (1998-ci il 18 iyun tarixində Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuşdur). Ötən müddətdə insan hüquqlarının müdafiəsi prosesinin səmərəli təşkili də diqqət mərkəzində saxlanılmışdır. Bu baxımdan dövlət başçısının 28 dekabr 2006-cı il tarixli "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə milli fəaliyyət planının təsdiq edilməsi haqqında" sərəncam ölkədə insan hüquq və azadlıqlarının təmini istiqamətində daha qətiyyətli və prinsipial addımların atılmasına imkan yaratmışdır. Sərəncam əsasında Azərbaycan Respublikasının normativ hüquqi aktlarının insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmini, beynəlxalq təşkilatlarla yeni əməkdaşlıq strategiyasının hazırlanması və həyata keçirilməsi, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təminatı baxımından təkmilləşdirilməsi, elmi-analitik işlərin stimullaşdırılması, hüquqi maarifləndirmə işinin genişləndirilməsi, dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Prezident İlham Əliyev ölkədə insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq məqsədilə 2011-ci il dekabrın 27-də imzaladığı sərəncamla "Azərbaycan Respublikasında İnsan Hüquqları sahəsində Milli Fəaliyyət Proqramı"nı təsdiq etmişdir. Dekabrın 27-də imzalanmış sərəncamla İnsan Hüquqları üzrə müvəkkilə proqramın həyata keçirilməsinin əlaqələndirilməsi üzrə işçi qrupunun fəaliyyətinə rəhbərlik etmək tövsiyə olunmuşdur. Konseptual və miqyaslı xarakter daşıyan Milli Fəaliyyət Proqramı "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması istiqamətində atılan ilk ciddi addımlardan biri olmuşdur. Bu sənəd insan hüquqlarının müdafiəsinin Azərbaycan üçün strateji əhəmiyyətli məsələ olduğunu bir daha təsdiqləyir. 6 fəsil və 75 bənddən ibarət Milli Fəaliyyət Proqramı normativ-hüquqi bazanın təkmilləşdirilməsi; əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi; dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi; insan hüquqları sahəsində tədris; elmi-analitik və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi; insan hüquqları sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq; Milli Fəaliyyət Proqramının həyata keçirilməsinin əlaqələndirilməsi; monitorinqi və qiymətləndirilməsi kimi vəzifələrin həlli istiqamətində mühüm tədbirləri özündə ehtiva edir.

Son illər ölkədə hüquqi dövlət quruculuğu sahəsində atılmış ən mühüm addımlardan biri də 2009-cu ilin 18 martında ümumxalq referendumu ilə Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərin edilməsi olmuşdur. Məlumdur ki, hər bir dövlətin hüquq sisteminin fundamental əsasını təşkil edən konstitusiyanın demokratikliyi, hamılıqla qəbul edilmiş ümumbəşəri norma və prinsiplərə cavab verməsi adekvat olaraq ictimai münasibətləri tənzimləyən qanunların liberallığında, insan və vətəndaş hüquq və azadlıqlarına maksimum təminat yaratmasında real təcəssümünü tapır. 2009-cu ilin 18 martında keçirilmiş ümumxalq referendumunun nəticəsi olaraq Azərbaycan Respublikası Konstitusiyasına edilmiş əlavə və

dəyişikliklər mahiyyətcə dövlətin hüquqi əsaslarının möhkəmləndirilməsinə, vətəndaşların hüquq və azadlıqlarının hüquqi təminatı məsələlərinin dəqiqləşdirilməsinə, habelə onların hüquqi çərçivəsinin, əhatə dairəsinin, hüdudlarının müəyyənləşdirilməsinə, ali hakimiyyət orqanlarının səlahiyyətlərinin konkretləşdirilərək məsuliyyətinin artırılmasına, yerli özünüidarə qurumlarının məsuliyyəti prinsiplərinin təsbit olunmasına yönəlmişdir.

Referendumun nəticəsi olaraq Konstitusiyada əksini tapmış əlavə və dəyişikliklərə vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasından və ətraf mühitin qorunmasından tutmuş, mülkiyyətin geri alınması prinsiplərinin dəqiqləşdirilməsinə, şəxsi həyatın qorunmasına, dini etiqadların və əqidələrin sərbəst ifadə edilməsinə (nümayiş etdirilməsinə), cinayət törədilməsində təqsirləndirilən şəxslərin hüquqlarının müdafiəsinə, insanların fərdi və qrup şəklində hüquqlarının təminatına, məhkəmə hakimiyyəti üzərində ictimai nəzarətin gücləndirilməsinə, icra və qanunverici orqanların fəaliyyətinin daha səmərəli həyata keçirilməsinədək geniş spektrli, əhəmiyyətli məsələlər daxildir.

Prezident İlham Əliyevin siyasi iradəsi ilə son illərdə məhkəmə sisteminin daha da müasirləşdirilməsinə xidmət edən tədbirlər də uğurla davam etdirilmişdir. Bu məqsədlə Azərbaycan-Avropa Şurası birgə işçi qrupları yaradılaraq onun tərkibinə nüfuzlu beynəlxalq ekspertlər daxil edilmiş, çoxşaxəli fəaliyyət planı hazırlanıb həyata keçirilmişdir. Görülmüş tədbirlər nəticəsində "Məhkəmələr və hakimlər haqqında" qanun əsaslı şəkildə yenilənmiş, "Məhkəmə-Hüquq Şurası haqqında" yeni qanun, "Hakimlərin Seçki Komitəsi haqqında Əsasnamə", "Hakim vəzifələrinə namizədlərin seçimi Qaydaları", Hakimlərin Etik Davranış Kodeksi, məhkəmələrdə işin şəffaf təşkili ilə bağlı digər mühüm sənədlər qəbul edilmişdir və hazırda uğurla tətbiq olunmaqdadır.

Məhkəmə-Hüquq Şurasının tərkibinin yenilənərək, əsasən hakimlərdən, eyni zamanda, ölkə Prezidentinin, Milli Məclisin, Prokurorluğun, Vəkillər Kollegiyasının nümayəndələrindən ibarət formalaşdırılması onun fəaliyyətinin daha da təkmilləşməsinə xidmət etmişdir. Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi və onların fəaliyyəti ilə bağlı digər məsələlər bu orqanın səlahiyyətinə aid edilmişdir.

19 yanvar 2006-cı il tarixli "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" fərman respublikanın məhkəmə sisteminin əsaslı şəkildə müasirləşdirilməsi və təkmilləşdirilməsi prosesində mühüm addımlardan biri olmuşdur. Regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilmiş bir sıra təşkilati-hüquqi, sosial tədbirlərin mahiyyətindən irəli gələn həmin fərman əsasında bölgələrdə yeni apelyasiya və iqtisad məhkəmələrinin yaradılması təmin edilmişdir. Fərman əsasında Ədliyyə Akademiyası yaradılmış, Hakimlərin Etik Davranış Kodeksi hazırlanaraq təsdiqlənmiş, məhkəmələrdə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi, məhkəmə təcrübəsində nəzərə alınması təmin olunmuşdur.

Bu gün respublikada demokratik təsisatların rolunun yüksəldilməsi vətəndaş cəmiyyəti quruculuğu prosesinin əsas şərtlərindən biri kimi çıxış etməklə, nəinki Azərbaycanda, həmçinin beynəlxalq arenada yüksək qiymətləndirilir. İqtisadi inkişafa paralel olaraq, ölkədə demokratik prinsiplər və dəyərlər, insan hüquq və azadlıqları getdikcə daha dolğun, real məzmun kəsb etməkdədir. Vətəndaşların əsas hüquqlarının müdafiəsinin mexanizmləri təkmilləşdirilir, bu sahədə beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq əlaqələri həyata keçirilir.

Dövlət hakimiyyətinin möhkəmliyi bir çox cəhətdən iqtidarın cəmiyyətin müxtəlif təbəqələrinin mənafelərini müdafiə etmək, ictimai qüvvələrin tarazlığını qoruyub saxlamaq və cəmiyyətə xas olan mülki, demokratik, özünüidarə meyillərinin mütərəqqi inkişafını təmin etmək qabiliyyəti ilə müəyyən olunur. Bu mənada, ölkədə demokratik təsisatların rolunun yüksəldilməsi, insan hüquqlarının müdafiəsi sisteminin təkmilləşdirilməsi istiqamətində atılan addımlar nəinki respublikamızda, həmçinin beynəlxalq arenada yüksək qiymətləndirilir. Hüquqi-siyasi sahədə aparılan islahatlar Azərbaycanın Avropa hüquq məkanında fəaliyyət göstərən beynəlxalq standartlara tam uyğunluğunu təsdiqləyir. Bütün bunlar göstərir ki, Prezident İlham Əliyev insan hüquqlarının qorunmasını təmin edən mütərəqqi islahatların aparılmasını demokratiyanın daha da möhkəmləndirilməsinə, vətəndaş cəmiyyəti quruculuğunun uğurla həyata keçirilməsinə istiqamətlənmiş siyasətin tərkib hissəsi kimi nəzərdən keçirir.

**“Azərbaycan”.-**2013.-20 aprel.-N 83.-S.7.

# TARİX ELMİMİZİN BÖYÜK HİMAYƏDARI

**Xəlil KÖÇƏRLİ,**
tarix elmləri doktoru, professor,
respublikanın əməkdar müəllimi

**Heydər Əliyev görkəmli siyasi xadim və dövlət xadimi olmaqla yanaşı, həm də tarix, fəlsəfə, ədəbiyyat və incəsənətin çox gözəl və dərindən bilicisi, vətən elminin, mədəniyyətinin hərtərəfli himayədarı idi. Ensiklopedik biliyə, güclü iradəyə və milli ruha, dərin fəlsəfi düşüncə tərzinə və möhkəm tarixi yaddaşa malik olan bu dahi şəxsiyyətin bütün fəaliyyəti doğma və sevimli xalqına sədaqətlə xidmətin parlaq təcəssümüdür**.

Heydər Əliyev müdrikliyindən, taleyin ona qismət etdiyi bilik və qabiliyyətindən öz şəxsi məqsədləri üçün deyil, millət və xalqı yolunda istifadə etdi. Keçən yüzilliyin son qərinəsindən başlayaraq çağdaş günlərimizədək Azərbaycanın bütün uğurları, istər sosial-iqtisadi inkişaf, istərsə də təhsil, elm və mədəniyyətin tərəqqisi böyük öndərin əsaslandırdığı strategiyanın uğurla həyata keçirilməsinin nəticəsidir. Xüsusilə belə bir cəhəti vurğulamaq vacibdir ki, onun layiqli varisi, yeni əsrin yeni lideri, Prezident İlham Əliyevin böyük təşkilatçılıq fəaliyyəti sayəsində son 10 ildə respublikanın iqtisadi potensialı dəfələrlə artmış, onun beynəlxalq imici yüksəlmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" sərəncamda deyilir ki, ölkəmizdə müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı dahi Heydər Əliyevin adı ilə bağlıdır.

Öz yurdunun, doğma torpağının qızğın təəssübkeşi olan böyük azərbaycanlı Heydər Əliyev vaxtilə dövlət təhlükəsizlik orqanında işləməsinə baxmayaraq ikinci ixtisas kimi tarixi seçmiş, Bakı Dövlət Universitetinin tarix fakültəsini qırmızı diplomla bitirmişdir. Belə bir seçimin başlıca səbəbi Heydər Əliyevin xalqımızın zəngin və qəhrəmanlıqla dolu tarixinə böyük sevgi bəsləməsi, onun həyatında baş verən hadisələrin incəliyə qədər hərtərəfli öyrənilməsinə səy göstərməsi idi. Ulu öndər demişdir: "Bizim xalqımızın böyük tarixi qəhrəmanlıq səhifələri ilə dolu olan tarixi məlumdur. ...Əsrlər boyu dəfələrlə xalqımız yadelli qəsbkarla üzləşib, qarşılaşıb və dəfələrlə döyüşə qalxıb, torpaqlarımızı müdafiə edib, öz milli mənliyini qoruyub saxlaya bilibdir".

Zəngin və dərin tarixi, fəlsəfi biliyə malik olan Heydər Əliyev vətən tariximizin düzgün araşdırılması və təbliğ olunmasına, onun bütün səhifələrinin təhriflərdən təmizlənməsinə böyük diqqət yetirmişdir. Azərbaycan tarix elminin metodoloji əsaslarının müəyyənləşdirilməsi, çox dəyərli ümumiləşdirmələr edilməsi sahəsində onun xidmətləri misilsizdir.

Azərbaycan alimləri və tarixçiləri ilə sıx əlaqə saxlayan və görüşlər keçirən ulu öndər çoxcildli "Azərbaycan tarixi", "Azərbaycan şəhərlərinin tarixi", "Azərbaycan xanlıqlarının tarixi", "Azərbaycan xalqının hərbi tarixi" kimi fundamental əsərlərin, habelə Azərbaycanın görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətini işıqlandıran monoqrafiyaların nəşr edilməsini qarşıya qoymuşdu. Məmnunluq hissi ilə qeyd etməliyik ki, onun bu tövsiyəsi uğurla həyata keçirilmişdir. 2012-ci ildə Prezident İlham Əliyevin tarixçilərin bir qrupuna Dövlət Mükafatı Laureatı fəxri adları verməsi də ümummilli liderə bir daha ehtiram göstərilməsinin nümunəsidir.

Ulu öndər hakimiyyətə gəldiyi 1969-cu ildə Azərbaycan xalqının taleyində mühüm rol oynamış görkəmli yazıçı, dövlət xadimi Nəriman Nərimanovun anadan olmasının 100 illiyini geniş qeyd etmək barədə sərəncam imzaladı. Bununla əlaqədar "Pravda" qəzetində çap etdirdiyi məqaləsində totalitar sovet rejimi şəraitində Nərimanovun haqsız hücumlara məruz qalması, Azərbaycanın müstəqilliyinə və ərazi bütövlüyünə qarşı, mərkəzin antiazərbaycan siyasətinə qarşı cəsarətlə mübarizə apardığını nəzərə çatdırdı.

1970-ci ildə N.Nərimanovun ev-muzeyinin açılması və ona əzəmətli abidələrin ucaldılması, əsərlərinin çap edilməsi və onun barəsində çoxsaylı monoqrafiyaların nəşri sahəsində görülən işlər ulu öndərin təkcə Nərimanova deyil, həm də Azərbaycanın bir çox tarixi şəxsiyyətlərinə bəslədiyi ehtiramın nəticəsidir.

Heydər Əliyevi Azərbaycan tarix elminin banisi və himayəçisi adlandıranlar tam haqlıdırlar. Onun bütün nitq və yazılarında tarix elminin ən aktual problemlərinin tədqiqi qarşıya qoyulurdu. O, dəfələrlə M.K.Atatürkün belə bir fikrinə diqqəti cəlb edirdi: Tarixi yazmaq onu yaratmaqdan daha çətindir. Tarix elm olmaqla heç bir təhrifə və ideyalaşdırmaya məruz qalmamalıdır.

Ulu Tanrı Heydər Əliyevə fenomen bilik və möhkəm yaddaş bəxş etmişdi. O, ən mötəbər beynəlxalq konfranslarda və toplantılarda heç bir mətndən istifadə etmədən məzmunlu nitq söyləmək, dinləyiciləri sehirləmək qabiliyyətinə malik şəxsiyyət idi. Ulu öndər "tarix nəsillərin varisliyi, onların bir-birini əvəz etməsi

deməkdir" konsepsiyasını əsas götürərək çağdaş hadisələri keçmişdə baş verənlərlə əlaqələndirmək, düzgün nəticələr çıxarmaq qabiliyyətinə malik idi.

Ulu öndərin "Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında" adlı xalqa müraciəti tarix elminə böyük və qiymətli töhfədir. Heydər Əliyev həmin müraciətində Azərbaycanın qədim sivilizasiyanın mərkəzlərindən biri olduğunu, xalqımızın beş min ildən artıq dövlətçilik tarixinə malik olmasını nəzərə çatdırır. Həm də tarix və müasirlik arasında sıx və qırılmaz vəhdət olduğunu əsaslandırır. Keçmişdə baş vermiş hadisələr heç də tamamilə keçmişdə qalmayıb, müasir həyatın strukturuna daxil olaraq onu istiqamətləndirir. Heydər Əliyev vurğulayır: "Tarix heç nəyi silmir", "Tariximiz bizim üçün dərs olmalıdır". Ulu öndər eyni zamanda tarixin həm də çağdaş proseslərin iştirakçısı kimi nəzərə alınmasını tövsiyə edir. Ümummilli lider göstərir: "Xalq gərək daim öz kökünü xatırlasın, belə ki, indi atılan hər hansı bir addım ölkənin inkişaf meyllərinə zidd olarsa, uğur gətirə bilməz".

Xalqımızın tarixi keçmişinə, çağdaş dövrə konseptual qiymət verən, zəngin mənəvi dəyərlərimizi ümumiləşdirən, milli ideyaları təcəssüm etdirən proqram səciyyəli həmin sənəd tarixçilərimiz, habelə, bütün icimaiyyətşünas alimlər qarşısında məsul vəzifələr qoydu. Xalqın tarixini dərindən bilən, onun ənənələrinə ehtiramla yanaşan ulu öndərin həmvətənlərinə həmişə "tariximizi, tarixi ənənələrimizi yaxşı bilmədən, onlara hörmət etmədən müstəqil dövlətimizi gələcəkdə qura bilmərik" tövsiyəsi xüsusi aktuallıq kəsb edir. Bir daha yəqin edirsən ki, tarixi ənənəyə xor baxmaq işə ziyan vurur. Tarixi şəxsiyyət və lider kimi bu ideyanın həyata keçirilməsi üçün o, nəhəng işlər gördü.

42 il öncə - 1971-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun, indiki N.Tusi adına Azərbaycan Dövlət Pedoqoji Universitetinin 50 illik yubileyi münasibətilə təntənəli yığıncaqda MK-nın birinci katibi kimi onun iştirak etməsi və tarixi çıxışı professor-müəllim və tələbələrin hafizəsində silinməz izlər qoydu. Ulu öndərin göstərişi ilə o vaxt dəbdə olan siyahı üzrə çıxışlara yol verilmədi. Cəmiyyəti düşündürən təhsil, elm məsələlərinin müzakirəsinə prioritet diqqət yetirildi.

Yığıncaqda Azərbaycan tarixinin və Azərbaycan dilinin tədrisinə xüsusi yer və diqqət yetirilməsinin zəruriliyi vurğulandı. Misal gətirildi ki, Azərbaycan ərazisində yerləşdirilən və uzun əsrlər boyu vətən ərazisi və dövləti olmayan ermənilərin tarixinə 150 saat ayrıldığı halda, bizim respublikada Azərbaycan tarixinə cəmi 40 saat verilmişdir. Ali məktəblərdə vəziyyət daha acınacaqlıdır, indiyə kimi Azərbaycan tarixi kafedraları və dərsliklər mövcud deyil, vətən tarixi fakültətiv fənn kimi tədris edilir.

Heydər Əliyev yığıncaqda proqram xarakterli nitq söyləyib, elm, təhsil sahəsindəki nöqsanları təhlil etdi, vətən tarixinin və Azərbaycan dilinin tədrisinə, dərsliklər və proqramlar nəşr edilməsinə xüsusi diqqət yetirməyi vacib saydı. Onun tapşırığı ilə ali və orta məktəblərdə Azərbaycan tarixinin tədrisi kökündən yaxşılaşdırıldı, saatların miqdarı artırıldı, dərsliklər və dərs vəsaitləri nəşr edilməyə başlandı.

Heydər Əliyevin yeni - XXI əsr münasibətilə xalqımıza müraciətində, bir çox nitq və sərəncamlarında Azərbaycan dövlətinin keçdiyi tarixi inkişaf yolunun mərhələləri təhlil edilmiş, milli tarixi proseslərin səciyyəvi xüsusiyyətləri işıqlandırılmışdır. Akademik R.Mehdiyevin redaktorluğu ilə nəşr edilən ulu öndərin "Müstəqilliyimiz əbədidir" adlı çoxcildlik monumental külliyyatı, habelə, digər əsərləri Azərbaycan tarixinin öyrənilməsi üçün qiymətli mənbə olmaqla ziyalılarımızın masaüstü kitabına çevrilib.

Ulu öndər xalqımızın keçdiyi inkişaf yolundan bəhs edərək göstərir ki, "XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti, şübhəsiz ki, müstəqil Azərbaycan dövlətinin yaranmasıdır". O, düzgün əsaslandırır ki, XX yüzillikdən başlanan milli dirçəliş, milli oyanış, milli ruhun canlanması istiqlal hərəkatının uğurla başa çatmasına, Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasına səbəb oldu.

Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin, cümhuriyyət xadimlərinin fəaliyyətini yüksək dəyərləndirmiş, 1991-ci ildə yaradılan Azərbaycan Respublikasının AXC-nin varisi olduğunu vurğulamışdır. Onun cümhuriyyətin 80 illiyi ilə əlaqədar imzaladığı sərəncamda deyilir: "AXC gərgin və mürəkkəb ictimai şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır... Onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır".

Heydər Əliyev 70 il hökm sürən sovet totalitar rejiminin Azərbaycana vurduğu ağır zərbədən bəhs edərək vurğulayır ki, bu illərdə heç bir əsas olmadan Azərbaycanın əzəli tarixi torpaqları mərkəzin təzyiqi ilə Ermənistana qatılmışdır. "Azərbaycan qədər heç bir müttəfiq respublika başqa müttəfiq respublikanın təcavüzünə məruz qalmayıb".

Dağlıq Qarabağ problemi pərdəsi altında Ermənistanın 1988-ci ildən bəri Azərbaycana qarşı hərbi təcavüzündən, o zamankı Azərbaycan başçılarının səriştəsiz rəhbərliyindən bəhs edən Heydər Əliyev düzgün olaraq nəzərə çatdırır: "Əgər Dağlıq Qarabağ faciəsinin bir qütbündə erməni separatçılığı, erməni terrorizmi,

Azərbaycana qarşı torpaq iddiaları dururdusa, digər qütbündə, nə qədər acı olsa da, bunu etiraf etmək lazımdır, bizim bəzi siyasətçilərimizin səriştəsizliyi, hakimiyyət hərisliyi, hədsiz-hüdudsuz şəxsi ambisiyaları durur".

**"Xalq qəzeti".-**2013.-21 aprel.-N 84.-S.5.

## İNSAN HÜQUQLARI SAHƏSİNDƏ YENİ STRATEGİYALARIN BANİSİ

**Prof. Elmira Süleymanova,**
Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman).

**Bu il xalqımız ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyini böyük təntənə ilə qeyd edir.**

**Təqdirəlayiq haldır ki, XX əsrin sonlarında öz müstəqilliyini bərpa etmiş və hüquqi, demokratik dövlət quruculuğu yolunu tutan Azərbaycan Respublikasında 1993–2003–cü illərdə həyata keçirilmiş mütərəqqi islahatlar məhz prezident Heydər Əliyevin adı ilə bağlıdır.**

**Xalqımızın böyük oğlu, ulu öndər Heydər Əliyevin Azərbaycanın inkişafında və dövlətçiliyin möhkəmlənməsində misilsiz xidmətləri olmuşdur. Müasir Azərbaycanın bugünkü hərtərəfli inkişafının əsası məhz ümummilli lider tərəfindən qoyulmuşdur.**

1993 –cü ildə xalqın təkidli tələbi ilə ulu öndərin ikinci dəfə hakimiyyətə gəlməsindən sonra həyata keçirilmiş islahatlar nəticəsində ölkədə makroiqtisadi və maliyyə sabitliyi əldə edilmiş, iqtisadiyyatda struktur dəyişiklikləri dərinləşmiş, sahibkarlığın inkişafı üçün münbit şərait yaranmışdır. Bütün istiqamətlərdə ardıcıl aparılan işlər ölkənin sosial–iqtisadi inkişafına, o cümlədən əhalinin rifah halının yaxşılaşmasına güclü təkan vermişdir.

Heç də təsadüfi deyildir ki, ulu öndərin yenidən siyasi hakimiyyətə qayıdışı tarixə Qurtuluş Günü kimi daxil olmuşdur. Ümummilli liderimiz Azərbaycanın müstəqil dövlət kimi əbədi varlığını təmin etmişdir. Heydər Əliyevin müstəqilliyimizin qorunmasında ölçüyəgəlməz xidmətləri olmuşdur.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai–siyasi, sosial, iqtisadi, elmi–mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaranmış, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlanmışdır. Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, həm Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmış, həm də atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salınmış, bunun da nəticəsində 1994–cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olunmuşdur.

Heydər Əliyev iqtisadi siyasətin hazırlanıb həyata keçirilməsinə, iqtisadiyyatın dinamik inkişafına da daim qayğı göstərmişdir. Burada Heydər Əliyevin neft strategiyası başlıca yer tutur. Onun əsasını isə 1994–cü il sentyabrın 20–də imzalanmış "Əsrin müqaviləsi" təşkil edir.

Belə ki, "Əsrin müqaviləsi"nin imzalanması gənc Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyasında, onun potensialının artmasında mühüm addımdır. Bu müqavilə Şərqlə Qərb arasında əməkdaşlıqda Azərbaycanın regiondakı liderliyini təmin etmişdir.

Neft strategiyasının əsas tərkib hissələrindən biri də onun dünya bazarlarına çıxarılması idi. 1999–cu il aprelin 17–də Bakı–Supsa neft kəməri istifadəyə verildi. Noyabrın 18–də isə ATƏT–in İstanbul sammitində Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri tərəfindən neftin Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru neft kəməri ilə nəql edilməsinə dair saziş imzalandı. 2006–cı ilin yayında istismara verilmiş həmin kəmərə Heydər Əliyevin adı verilmişdir.

Neft Azərbaycan xalqının təbii sərvətidir. Ona görə də neftdən əldə olunan gəlir Azərbaycan xalqı və dövlətinin tərəqqisinə xidmət edir. Bunu nəzərə alan Heydər Əliyev 1999–cu il dekabrın 29–da Dövlət Neft Fondunun yaradılması haqqında fərman imzalamışdır.

Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi nəticəsində Azərbaycan Respublikası dünyanın əsas neft istehsalı mərkəzlərindən birinə çevrilmişdir.

Neftlə bərabər, sənayenin digər sahələri də, xüsusilə qabaqcıl texnika və texnologiyalar əsasında müxtəlif sahələrin inkişafı diqqət mərkəzində olmuşdur. Bunun üçün sənayenin əsas göstəricilərinə və sahələr üzrə sənaye məhsullarının həcminə dair məlumatlara nəzər salmaq kifayətdir.

Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan Respublikasında olan sənaye müəssisələrinin sayı 2306–dan 5202–yə çatmış, yəni 55% artmışdır.

Heydər Əliyev iqtisadi siyasətinin ən uğurlu cəhətlərindən biri də planlı–sosialist təsərrüfatından azad olan bazar iqtisadiyyatına keçilməsinin təmin edilməsi olmuşdu. Özəlləşdirmə siyasəti uğurla həyata keçirilmiş, yeni sahibkarlar təbəqəsi təşəkkül tapmış, istehsalın strukturunda özəl bölmənin payı artmışdır.

Heydər Əliyevin idarəetmə siyasətində xalqın rifahının yüksəldilməsi, həyat səviyyəsinin yaxşılaşdırılması, bir sözlə, bütün tədbirlərin sosialyönümlü olması həmişə önəmli yerə malik olmuşdur. Bu, ilk növbədə, dövlət büdcəsindən sosial məsələlərin həlli üçün ayrılan vəsaitin ildən–ilə artırılmasında əksini tapmışdır. Digər tərəfdən, əhalinin pul gəlirləri də yüksələn xətlə çoxalmışdır. Qaçqınların və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılmışdır. Bunun üçün 1998–ci il sentyabrın 17–də xüsusi Dövlət Proqramı qəbul edilmişdir.

Yoxsulluğun azaldılması da əsas istiqamətlərdən biri idi. Bunun üçün dövlətin sosial sahədə tədbirlərinin genişləndirilməsi ilə birgə, yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə xüsusi fikir verilirdi. Bu proses davam etdirilməklə son 10 ildə yoxsulluq səviyyəsi 49%–dən 6%–ə endirilmişdir.

Qərblə Şərq arasında olduqca əlverişli geosiyasi və strateji mövqeyə malik olan Azərbaycan Respublikasının qədim İpək Yolunun üzərində–dünya nəqliyyat sisteminin kəsişmə nöqtəsində yerləşməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Odur ki, prezident Heydər Əliyevin uzaqgörənliklə irəli sürdüyü qədim İpək Yolunun bərpası ideyası, 1993–cü ilin mayında Traseka Proqramının qəbulu Azərbaycanın Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizinə cəlb edilməsində, nəticə etibarilə, onun iqtisadi potensialının artmasında mühüm rol oynamışdır. 1996–cı ilin dekabrında Azərbaycan, Gürcüstan və Ukrayna dövlət başçıları Avrasiya dəhlizinin yaradılması haqqında saziş imzalamışlar. 1998–ci ilin sentyabrında Bakıda İpək Yolunun bərpası ilə bağlı 33 ölkənin, 13 beynəlxalq təşkilatın iştirakı ilə keçirilən konfrans Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasını daha da sürətləndirmiş, onun dinamik və ahəngdar inkişafını təmin etmişdir.

Ümummilli liderin əsasını qoyduğu siyasət ölkəmizin iqtisadi inkişafını təmin etmiş, dünya iqtisadiyyatında Azərbaycan modelinin yaranması ilə nəticələnmişdir. Dünyanın aparıcı ölkələrini iqtisadi böhran bürüdüyü, kreditlərin azaldığı, sosial ödənişlərin məhdudlaşdığı bir zamanda Azərbaycanda iqtisadi inkişaf tempi artmaqdadır.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə olduğu kimi, bu dövrdə də milli–mənəvi inkişafa xüsusi qayğı göstərilmişdir. Elm və təhsil sahəsində yeni uğurlar əldə edilmiş, bazar iqtisadiyyatına keçidin yaratdığı problemlərin həllinə xüsusi diqqət yetirilmişdir.

Yeni cəmiyyət formalaşması mədəniyyətin inkişafında daha dərin dəyişikliklərlə müşahidə edilmiş, mədəniyyətin bütün sahələrinə dövlət qayğısı artırılmışdır.

Heydər Əliyevin azərbaycançılıq ideologiyası milli–mənəvi inkişafın əsas zəmini olmuşdur. O, milli–mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü.

"…Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli–mənəvi dəyərlərini, adət–ənənələrini yaşatmalıyıq" – deyən Heydər Əliyev azərbaycançılığı milli bir ideologiya kimi irəli sürür, mədəniyyətimizi, mənəvi dəyərləri təkcə milli varlığımızın deyil, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi.

Ulu öndərin milli–mənəvi dəyərlərin qorunması ilə bağlı 2001–ci il avqustun 13–də verdiyi "Milli–mənəvi dəyərlərin pozulması xalqımıza qarşı bağışlanmaz xəyanətdir" bəyanatı problemə təkcə dövlət rəhbərinin deyil, həm də müdrik bir el ağsaqqalının münasibəti idi.

Göründüyü kimi, Heydər Əliyev Azərbaycanın mədəni yüksəlişi üçün də mühüm tədbirlər həyata keçirmişdir. 2001–ci il avqustun 9–da Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi, 2002–ci ildə Şirvanşahlar Sarayında, Möminə xatın məqbərəsində, Qarabağlar türbəsində və Şəki Xan Sarayında təmir–bərpa işlərinin aparılması, Qız qalasının və İçərişəhərin YUNESKO–nun "Dünya mədəniyyəti irsi" siyahısına daxil edilməsi ölkə mədəniyyətinin inkişafına əvəzsiz töhfələr vermişdir.

Heydər Əliyev tərəfindən yaradılmış siyasi və iqtisadi baza Azərbaycan Respublikasının gələcək inkişaf strategiyasının əsasını təşkil edir. Artıq Azərbaycan dünyanın mühüm yanacaq–energetika regionlarından birinə çevrilərək öz inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuşdur.

Heydər Əliyevin səyi nəticəsində Azərbaycanda vətəndaş cəmiyyəti qurulması sahəsində uğurlu addımlar atılmışdır.

Azərbaycanda çoxpartiyalı sistemin təşəkkülünə diqqət yetirilmiş, qeyri–hökumət təşkilatlarının yaranması və fəaliyyətinin genişlənməsində də yeniliklər özünü göstərmişdir.

Müstəqillik, demokratiya, tərəqqi yoluna qədəm qoymuş xalqımız Azərbaycan xalqının böyük övladı Heydər Əliyevin insan və vətəndaş hüquq və azadlıqlarının qorunması istiqamətində həyata keçirdiyi ardıcıl, qətiyyətli siyasətinin uğurlu nəticələrindən bu gün də bəhrələnməkdədir.

Məlumdur ki, iqtisadi, sosial və siyasi islahatların həyata keçirilməsi qanunvericilik bazası olmadan mümkün deyildir. Buna görə də dövlət quruculuğuna hüquqi bazanın yaradılmasından başlanılmışdır.

Hüquqi islahatların təməli isə öz əksini Azərbaycan Respublikasının yeni Konstitusiyasında tapmışdır. Müstəqil Azərbaycanımızın ilk demokratik Konstitusiyası məhz Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 12 noyabr 1995–ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmişdir.

Heydər Əliyev yeni Konstitusiyanı son dərəcə mükəmməl bir sənəd kimi hazırlamağı tövsiyə edərək demişdir:

"Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun".

Ölkəmizin yeni Konstitusiyasının yaradılmasında həm tarixi keçmişimizin dəyərlərindən, həm də ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin təcrübəsindən istifadə edilməsi mühüm vəzifə kimi qarşıya qoyulmuşdu.

Bu ali sənəd dünyanın sivil dövlətlərinin və beynəlxalq təşkilatlarının adından qəbul olunan sənədlərdən mükəmməlliyi, bəşəri dəyərlərə sadiqliyi ilə seçilir. Azərbaycan Respublikasının Konstitusiyasında ümumbəşəri normalar özünün əhatəli təsbitini tapmışdır.

Əsas Qanunumuzun 48 maddədən ibarət üçüncü fəslinin bütün müddəaları insana, onun ləyaqətinə, hüquqlarına hörmət ruhunda yazılmış, insan hüquq və azadlıqları ən yüksək dəyər kimi təsbit olunmuşdur.

Konstitusiyanın 12–ci maddəsinin I hissəsinə görə insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir.

Heydər Əliyev Konstitusiyanın həyatiliyini təmin etmək üçün onun təkmilləşdirilməsi sahəsində də fəaliyyətini davam etdirmişdir. O, 2002–ci ildə Azərbaycan Respublikası Konstitusiyasına dəyişikliklər edilməsi haqqında qərar qəbul etmiş, avqust ayında bu məsələlər üzrə referendum keçirilmişdir.

Müasir dünyada hər bir dövlətin demokratik dəyərlərə sadiqliyi onun insan hüquqlarına münasibəti ilə müəyyən olunur. Bu mənada Heydər Əliyevin müstəqil respublikamıza başçılıq etdiyi dövrlərdə ən çox diqqət yetirdiyi sahələrdən biri də insan hüquq və azadlıqlarının qorunması olmuşdur. Ümummilli liderimiz özünün proqram xarakteri daşıyan çıxışlarının birində "Vəzifəli şəxslərin fəaliyyətini onların insan hüquqlarının qorunmasındakı xidmətlərinə görə qiymətləndirmək lazımdır" deməklə insan hüquqlarının müdafiəsinə daim böyük önəm verdiyini diqqətə çatdırmışdır.

Qısa müddət ərzində Heydər Əliyev tərəfindən insan hüquq və azadlıqlarının təmini məqsədi ilə bir sıra mühüm tədbirlər həyata keçirilmiş, müvafiq qanunvericilik aktları qəbul olunmuş, fərman və sərəncamlar imzalanmışdır. Bu sahədə Azərbaycan Respublikası Prezidentinin 1996–cı il 21 fevral tarixli sərəncamını xüsusilə qeyd etmək lazımdır. Bu sərəncama uyğun olaraq respublikamızda Hüquqi İslahat Komissiyası yaradılmış, ölkəmizdə həyata keçirilməsi planlaşdırılan hüquqi islahatlar sürətləndirilmişdir. Bu komissiya tərəfindən beynəlxalq təcrübə əsasında həyatın bütün sahələrini əhatə edən və mühüm münasibətləri tənzimləyən normativ–hüquqi aktlar hazırlanmışdır.

Azərbaycanda beynəlxalq standartlara və normalara uyğun Cinayət, Cinayət–Prosessual, Mülki və Mülki–Prosessual məcəllələrin, habelə məhkəmə–hüquq sistemi ilə bağlı yeni qanunların hazırlanmasının əsası qoyulmuşdur.

Əsas Qanunun ardınca qəbul edilən qanunvericilik aktları Azərbaycan Respublikasının siyasi və iqtisadi həyatının hüquqi əsasda qurulması, hüquqi islahatların həyata keçirilməsi üçün mühüm addım olmaqla, insan hüquq və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi ön plana çıxarmış oldu.

Heydər Əliyev yalnız qanunlar qəbul edilməsinə deyil, onların həyata keçirilməsinə də xüsusi diqqətlə yanaşırdı. 1998–ci ildə respublikada ilk dəfə olaraq Konstitusiya Məhkəməsi yaradıldı.

Prezident Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş hüquqi islahatların bir istiqaməti də seçki hüququnun daha effektiv təmin edilməsi ilə bağlı olmuşdur.

Azərbaycan dövlətçiliyinin inkişafında bələdiyyələr haqqında qanun qəbul edilməsi və bələdiyyə institutunun fəaliyyətə başlaması da yeni hadisə idi. 1999–cu il dekabrın 12–də bələdiyyələrə ilk seçki keçirilmiş, 23 min şəxs bələdiyyə üzvü olmuşdur.

Azərbaycan Respublikasında seçki sahəsində həyata keçirilən islahatların məntiqi davamı kimi, seçki sisteminin təkmilləşdirilməsi və seçki hüquqlarının təmin edilməsi məqsədi ilə 27 may 2003–cü il tarixdə Avropa standartlarının tələblərinə uyğun və Avropa Şurasının Venesiya Komissiyasının iştirakı ilə hazırlanan yeni Seçki Məcəlləsi qəbul edilmişdir. Artıq ölkəmizdə prezident, parlament və bələdiyyə seçkiləri bu məcəllə əsasında keçirilir.

Demokratik quruluşun, vətəndaş cəmiyyətinin formalaşması prosesinin ayrılmaz tərkib hissələrindən biri söz azadlığının təmin olunmasından ibarətdir.

Ümummilli liderin həyata keçirdiyi uzaqgörən siyasət ölkənin ictimai–siyasi həyatında sabitliyin bərqərar olması, vətəndaşların təhlükəsizliyinin və qanunçuluğun təmin edilməsi, sosial–iqtisadi problemlərin həlli sahəsində ciddi addımların atılması kütləvi informasiya vasitələrinin fəaliyyəti, söz, fikir və məlumat azadlığının qorunması sahəsində əsaslı irəliləyişlərin əldə olunmasına şərait yaratdı. Belə ki, Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, kütləvi informasiya vasitələrinin maddi–texniki təchizatının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər həyata keçirilmişdir. Vətəndaş cəmiyyəti quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycan Respublikası insan hüquqları, söz və mətbuat azadlığının təmin olunması ilə bağlı mövcud olan əksər beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur. Müstəqil kütləvi informasiya vasitələrinin təsis edilməsi və azad fəaliyyəti üçün ölkəmizdə zəruri qanunvericilik bazası yaradılmışdır.

“Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında” 6 avqust 1998–ci il tarixdə imzalanmış fərman kütləvi informasiya vasitələrinin sərbəst inkişafı, onların cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsində mühüm addım oldu. Bu fərmanla Nazirlər Kabineti yanında Mətbuatda və digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv edilmiş, hərbi senzura yaradılması haqqında 16 aprel 1992–ci il tarixli fərman və bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993–cü il tarixli sərəncam qüvvədən düşmüş hesab edilmişdir.

2000–ci il martın 6–da Heydər Əliyevin imzaladığı sərəncamla “2000–2001–ci illərdə kütləvi informasiya vasitələrinin maddi–texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqramı” təsdiq olunmuş və müvafiq dövr ərzində uğurla icra olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin “Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması haqqında” 20 iyul 2001–ci il tarixli fərmanında isə milli mətbuatın inkişafı ilə əlaqədar əlavə tədbirlər nəzərdə tutulmuşdur.

BMT–nin 2000–ci ildə keçirilmiş minilliyin sammitindən irəli gələn öhdəliklərin yerinə yetirilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədi ilə 2003–cü il 20 fevral tarixli fərmanla “2003–2005–ci illər üçün Azərbaycanda yoxsulluğun azalması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı” təsdiq edilmiş və bu sənədin icrası nəticəsində insanların sosial–iqtisadi hüquqlarının daha səmərəli müdafiəsi istiqamətində mühüm addımlar atılmışdır.

Məlum olduğu kimi, insan hüquq və azadlıqlarının təmini ilə bağlı beynəlxalq müqavilələrdə və dövlətdaxili qanunvericilik aktlarında təsbit olunmuş hüquqlardan kəsb etdiyi əhəmiyyətinə görə ən vacibi yaşamaq hüququdur. Məhz bu hüququn qorunması, toxunulmazlığı digər hüquq və azadlıqların təmin olunmasına şərait yaratmış olur. Təsadüfi deyildir ki, tarix boyu insanlar məhz yaşamaq hüququnun tam təmin olunması və qorunması istiqamətində mübarizə aparmış və aparmaqdadırlar.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra insan hüquq və azadlıqlarının təmini məqsədi ilə həyata keçirilən hüquqi islahatlar sırasında ən mühümü məhz yaşamaq hüququnun təmini istiqamətində həyata keçirilən tədbirlər olmuşdur.

1993–cü ildən respublikamızda ölüm cəzasının tətbiqi üzərində veto qoyulmuş, 1998–ci il 10 fevral tarixli Azərbaycan Respublikasının Qanunu ilə isə ölüm cəzası ləğv olunaraq ömürlük azadlıqdan məhrumetmə cəzası ilə əvəz olunmuşdur.

Şərqdə ilk dəfə məhz bizim respublikamızda ölüm cəzasının ləğv edilməsi dünyada böyük əks–səda doğurmuşdur. Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilmiş bu islahat dövlətimizin humanist siyasi kurs həyata keçirdiyini bəyan etməklə onun Avropa hüquq məkanına inteqrasiyasını sürətləndirmişdir.

Yaşamaq hüququnun təmin edilməsi baxımından ölkəmizdə dəfələrlə tətbiq olunmuş əfv və amnistiya aktları xüsusi əhəmiyyət kəsb edir.

Heydər Əliyev müdrik rəhbər olaraq cəzanın humanistliyi və adekvatlığını, tərbiyəvi əhəmiyyətini də daim önə çəkərək ölkədə əfvetmə institutunun formalaşması istiqamətində real addımlar atmışdır. Belə ki, Azərbaycan Respublikasında ilk əfv fərmanı prezident Heydər Əliyev tərəfindən 1995–ci ildə imzalanmış və demək olar ki, bu tarixdən etibarən Azərbaycanda əfv institutu bərpa olunmuşdur.

1995–2003–cü illərdə Heydər Əliyev tərəfindən 32 əfv fərmanı imzalanmış, bu fərmanlar 3104 məhkuma şamil edilmişdir. Ulu öndər Heydər Əliyev eyni zamanda Azərbaycanda amnistiya aktlarının qəbulunu da mütərəqqi ənənəyə çevirmişdir. 1996–cı ildən başlayaraq 9 amnistiya aktı qəbul edilmiş və on minlərlə insana tətbiq edilmişdir.

Ümumiyyətlə, dövlətimizin humanist siyasəti nəticəsində 1995–2013–cü illər ərzində 54 əfv fərmanı imzalanmışdır ki, bunun da nəticəsində minlərlə insan azadlığa qovuşmuşdur.

Yeri gəlmişkən, qeyd edək ki, fəaliyyət dövrü ərzində Ombudsman ölkə Prezidenti cənab İlham Əliyevə yüzlərlə məhkumun əfv olunması ilə bağlı müraciət ünvanlamış, həmin müraciətlərin bir qismi nəzərə alınmış, bugünədək ümumilikdə 391 məhkum əfv edilərək azadlığa buraxılmışdır.

İnsan hüquqlarının və azadlıqlarının təmin olunması istiqamətində qəbul edilmiş normativ sənədlər sırasında Heydər Əliyevin 22 fevral 1998–ci il tarixində imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmanı, habelə 1998–ci il 18 iyun tarixli sərəncamı ilə təsdiq edilmiş və bu il 15 illiyi tamam olan "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nı xüsusilə qeyd etmək lazımdır. Belə ki, bu sənədlərdə insan hüquqlarının müdafiəsi sahəsində mühüm tədbirlərin həyata keçirilməsi, o cümlədən Azərbaycan Respublikasının İnsan hüquqları üzrə səlahiyyətli müvəkkili təsisatının yaradılması, ölkəmizin insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, bu sahədə elmi–tədqiqat institutunun yaradılması, normativ–hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə tədqiqat və təhsil proqramları üzrə mütəxəssislərin hazırlanması, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi və digər məsələlər nəzərdə tutulmuşdur.

Bu gün artıq qətiyyətlə demək olar ki, aparılmış uzaqgörən siyasət nəticəsində bu məsələlərin hər biri öz uğurlu həllini tapmışdır.

Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildikdən sonra, ölkədə bu sahədə demokratik, hüquqi islahatların həyata keçirilməsi və insan hüquqlarının səmərəli təmini məqsədilə institusional mexanizmlər sistemi yenidən qurulmuşdur.

Bu sahədə atılan ən mühüm addımlardan biri ötən il fəaliyyətinin 10 ili tamam olan Ombudsman təsisatının yaranması oldu. Bu təsisatın yaranması bilavasitə ümummilli liderimizin adı ilə bağlıdır.

Ombudsman institutunun yaradılması və fəaliyyəti dövlət və vətəndaş, hakimiyyətə malik şəxslər, yəni idarə edənlər və idarə olunanlar arasında münasibətlərdə yeni bir başlanğıcın əsasını qoydu.

28 dekabr 2001–ci il tarixdə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun qəbul edilməsi insan hüquqları sahəsində həqiqətən böyük dönüş nöqtəsi oldu. Qanunun konstitusiya statuslu olması dövlətin bu təsisatın fəaliyyətinə, ümumilikdə isə insan hüquqlarının müdafiəsi işinə verdiyi böyük önəmin göstəricisi olaraq qiymətləndirilməlidir ki, Konstitusiya qanunları qanunvericilik sisteminin əsasını təşkil edir və ali qanun olan Konstitusiyanın ayrılmaz hissəsidir.

Beləliklə, mühüm əhəmiyyətə malik olan tarixi hadisələrin xronoloji ardıcıllığına diqqət yetirdikdə, 2001–ci ilin yanvarın 25–də Avropa Şurasına üzv olduq, dekabrın 25–də Avropa İnsan Hüquqları Konvensiyasına qoşulduq və 3 gündən sonra dekabrın 28–də isə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında ilk Konstitusiya statuslu qanun qəbul olundu, bununla da Ombudsman təsisatının hüquqi bazasının özülü qoyuldu.

Ombudsman haqqında Konstitusiya Qanunu hazırda yeni redaksiyada qüvvədədir. Qanunun üstünlüklərindən biri ondan ibarətdir ki, o, Müvəkkili preventiv səlahiyyətlə təminatlandırır. Yəni, Müvəkkil nəinki Konstitusiyada və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquqları və azadlıqlarını bərpa edir, həmçinin qanuna edilən son əlavə və dəyişiklərə görə insan hüquqları pozuntularının qarşısının alınması səlahiyyətlərinə malikdir.

Qanuna edilən yeni əlavə və dəyişikliklərdən biri də işgəncə əleyhinə milli preventiv mexanizmin (MPM) fəaliyyəti ilə bağlıdır.

2 dekabr 2008–ci il tarixdə ölkəmiz tərəfindən ratifikasiya edilən İşgəncə əleyhinə BMT Konvensiyasının Fakültativ Protokolunun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 13 yanvar 2009–cu il tarixli sərəncamı ilə adıçəkilən sənəddə nəzərdə tutulmuş MPM funksiyalarını yerinə yetirən təsisat qismində Müvəkkil müəyyən edilmişdir. Qanunda Müvəkkilin Aparatında yaradılan Milli preventiv qrupun (MPQ) səlahiyyətləndirilməsi, bu qrupun üzvlərinə dair tələblər, onların toxunulmazlığının təminatları və digər əhəmiyyətli məsələlər təsbit edilmişdir. Qanuna görə, Müvəkkil işgəncənin və digər qəddar, qeyri–insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısını almaq məqsədi ilə saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə müntəzəm surətdə və ya zəruri saydığı istənilən halda baş çəkir.

MPM qismində fəaliyyətə dair iki ili (2009–2010) əhatə edən ilk hesabat, həmçinin 2011–ci il üzrə hesabat Azərbaycan və ingilis dillərində hazırlanaraq çap olunmuşdur. 2012–ci il üzrə də müvafiq hesabat artıq hazırlanmışdır.

Yeni əlavə və dəyişikliklərə əsasən Müvəkkil 30 sentyabr 2005–ci il tarixli "İnformasiya əldə etmək haqqında" qanunun icrasına nəzarəti həyata keçirir.

Bununla bağlı heç bir ayrı–seçkiliyə yol vermədən çoxsaylı KİV təmsilçiləri, dövlət qurumlarının mətbuat xidmətlərinin nümayəndələri, həmçinin qeyri–hökumət təşkilatları ilə məsləhətləşmələr keçirilir və hazırda da bu proses davam etməkdədir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 5 sentyabr 2012–ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012–2015–ci illər üçün Milli Fəaliyyət Planı"nda "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin icrasına nəzarətin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının strukturunun təkmilləşdirilməsi nəzərdə tutulmuşdur.

Fəaliyyəti dövründə Azərbaycan Ombudsman təsisatı işi ilə cəmiyyətə öz yeniliklərini, müsbət təcrübəsini və təşəbbüslərini də gətirmişdir. İstər dövlət qurumlarının və vəzifəli şəxslərin, istərsə də cəmiyyətin ayrı–ayrı fərdlərinin, o cümlədən hüququ pozulmuş şəxslərin insan hüquqları məfhumuna yanaşma tərzi dəyişmişdir. Müvəkkilin tövsiyəsi ilə ilk dəfə olaraq bir çox dövlət qurumlarının strukturu təkmilləşmiş, insan hüquqları bölmələri yaradılmış, bu isə öz növbəsində səmərəli idarəetmənin formalaşmasına gətirib çıxarmışdır.

Yeniliklərdən biri də Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı və Milli Fəaliyyət Proqramı üzrə "ictimai dinləmələr"lə bağlıdır. Belə ki, qeyd olunan sənədlərin icrasının monitorinqi məqsədilə ölkənin hər bir şəhər və rayonunda millət vəkillərinin, yerli icra hakimiyyəti, məhkəmə və digər hüquq–mühafizə orqanlarının, bələdiyyələrin, yerli QHT–lərin, KİV–lərin, o cümlədən milli azlıqların yerli icmalarının nümayəndələrinin iştirakı ilə ictimai dinləmələr keçirilmişdir. Ölkəmiz üçün yenilik olan ictimai dinləmələr iştirakçıların böyük fəallığı şəraitində keçmiş və böyük marağa səbəb olmuşdur. Məhz ictimai dinləmələr nəticəsində bu sənədlərin səmərəli icrası, həmçinin ictimai dinləmələrdə insanların öz fikir və təkliflərini sərbəst surətdə ifadə etməsi, bütün hüquqların hər bir kəsə heç bir ayrı–seçkiliyə yol verilmədən məxsusluğu fikrinin möhkəmlənməsi, bütövlükdə demokratik, layiqli idarəetmənin təkmilləşməsinə xidmət edir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Müvəkkilin də təklifi nəzərə alınmaqla 18 iyun tarixi Azərbaycanda insan hüquqları günü kimi təsdiq olunmuş və buna uyğun olaraq hər il 18 may–18 iyun tarixi "insan hüquqları aylığı" elan olunur və aylıq çərçivəsində həm dövlət qurumları, həm də vətəndaş cəmiyyəti institutları tərəfindən silsilə tədbirlər həyata keçirilir;

Qarşılıqlı əməkdaşlıq münasibətləri yalnız dövlət orqanları ilə deyil, QHT–lər, ictimaiyyətlə, vətəndaş cəmiyyəti ilə səmərəli əməkdaşlıq şəraitində qurmağa xüsusi diqqət yetirilmiş və bu əməkdaşlığı daha faydalı və məqsədyönlü etmək, müntəzəm davam etdirmək üçün insan hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşan dövlət orqanları təcrübəsində ilk dəfə olaraq Ombudsmanın yanında müstəqil Ekspertlər Şurası yaradılmışdır. O cümlədən, əhalinin müxtəlif təbəqələrinin hüquqlarının daha etibarlı təmin edilməsi məqsədilə ayrı–ayrı sahələr (qadın, uşaq, ahıl, əlil, qaçqın və məcburi köçkünlər, məhkumlar, hərbi qulluqçular və b.) üzrə ixtisaslaşmış müşavirlər fəaliyyət göstərir.

Ombudsman təsisatının gətirdiyi digər mühüm yenilik xarici əlaqələr sahəsində fəaliyyətlə bağlıdır. Buraya universal və regional beynəlxalq təşkilatlarla (o cümlədən BMT–nin ixtisaslaşdırılmış təsisatları ilə) əməkdaşlıq və qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, insan hüquqlarının təmin olunması sahəsində beynəlxalq təşkilatlarla birgə layihələrin həyata keçirilməsi, Azərbaycan Respublikasının BMT–nin müqavilə komitələrinə təqdim olunan hesabatların hazırlanmasında iştirak, əlavə və alternativ məruzələrin hazırlanması və aidiyyəti üzrə təqdim olunması, ombudsman təsisatının ən yüksək "A" statusuna layiq görülməsi, bir sıra nüfuzlu təşkilatlara (Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutları, Asiya Ombudsmanlar Assosiasiyası və s.) üzvlük, hər il Bakıda müxtəlif ölkələrin ombudsmanlarının iştirakı ilə artıq bir ənənə halını almış Ombudsmanların Beynəlxalq Bakı Forumunun keçirilməsi, bu forumlar çərçivəsində bəyannamələrin qəbul edilməsi, BMT–nin İnsan Hüquqları Şurası ilə əməkdaşlıq, Şuranın sessiyalarında iştirak, xüsusi bəyanatlarla çıxış edilməsi və bu bəyanatların rəsmi sənəd kimi qeydiyyatdan keçməsi və bu kimi digər işləri aid etmək olar.

Yeniliklər sırasında iştirak etdiyimiz beynəlxalq proqramları qeyd etmək lazımdır. Beynəlxalq əlaqələrimiz sırasında Avropa Birliyi ilə münasibətlər xüsusi önəm daşıyır. Bu əməkdaşlıq əlaqələri kontekstində Avropa Birliyinin Şərq tərəfdaşlığı və Twinning layihələrində aktiv iştirak edirik. Bununla yanaşı, Avropa Birliyinin TAİEX proqramının da iştirakçısıyıq və bu proqram çərçivəsində 2011–ci ilin oktyabr ayında "Ombudsmanın Regional Mərkəzlərinin imkanlarının artırılması" mövzusunda treninq–seminar keçirilmişdir. Twinning üzrə tərəfdaşımız Almaniya İnsan Hüquqları İnstitutu olmuşdur. Cənubi Qafqazda ilk dəfə olaraq Azərbaycanda tətbiq olunmuş "Twinning Light" layihəsi uğurla həyata keçirilmiş, faydalı təcrübə mübadiləsi aparılmışdır. Ombudsman Avropa Birliyinin Şərq Tərəfdaşlığı təşəbbüsündə də fəal iştirak etməkdədir və burada tərəfdaşımız Polşa ombudsman təsisatıdır. Bu layihə çərçivəsində Azərbaycan Ombudsman Aparatının və Polşa

Ombudsman təsisatının bir neçə əməkdaşının iştirakı ilə 2011–ci ilin may ayında Varşavada, 2011–ci ilin oktyabr ayında isə Bakıda birgə görüşlər keçirilmiş və həmin görüşlərdə işgəncələrə qarşı mübarizə üzrə milli preventiv mexanizmlərin fəaliyyəti, ayrı–seçkiliklə mübarizə, cinayət qurbanlarına hüquqi, psixoloji, təşkilati və maliyyə dəstəyinin göstərilməsi, insan hüquqlarının müdafiəsi işində yeni texnologiyalardan istifadə imkanları mövzularında müzakirələr aparılmış, bununla bağlı gələcək əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur. Hal–hazırda bu istiqamətdə fəaliyyətimiz davam edir.

Azərbaycan Ombudsman təsisatı 2011–ci ildə Asiya Ombudsmanlar Assosiasiyasına institusional üzv seçilmişdir.

Ombudsman təsisatı aidiyyəti dövlət qurumlarının və əlilliyi olan şəxslərin təmsil olunduğu QHT–lərin də təklifləri nəzərə alınmaqla "Əlillərin hüquqları haqqında" Konvensiya üzrə müstəqil monitorinq mexanizminin funksiyalarını yerinə yetirən müstəqil milli insan hüquqları təsisatı qismində müəyyən edilmişdir. UNİCEF–in dəstəyi ilə əlillərin hüquqları üzrə BMT komitəsinə təqdim edilməsi üçün paralel məruzə hazırlanmışdır.

Həqiqətən də, dövlətin siyasi iradəsi, dəstəyi olmasa heç bir ölkədə ombudsman səmərəli fəaliyyət göstərə bilməz.

Fərəhli haldır ki, ümummilli liderimizin insan hüquq və azadlıqlarının qorunması sahəsində müəyyən etdiyi müdrik və uzaqgörən siyasi xətt bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Belə ki, əsası Heydər Əliyev tərəfindən qoyulmuş davamlı, ardıcıl proseslər, yeni strategiyalar, konseptual yanaşma, milli fəaliyyət planı və proqramları üzərində qurulmuş çoxsaylı praktiki tədbirlər həm normativ hüquqi bazanın təkmilləşməsi, həm də bunların həyata keçirilməsini təmin etmək üçün yeni mexanizmlərin yaranması və daha da təkmilləşdirilməsi öz müsbət nəticələrini verməkdədir.

Böyük ehtiram hissi ilə xatırlamaq istərdim ki, Prezident Heydər Əliyev öz şəxsi keyfiyyətləri ilə hər kəsə nümunə idi. Bu gün biz müstəqil respublikamızda sabitlik, əmin–amanlıq mühitində yaşayırıqsa, Azərbaycanın müstəqilliyi daimi, dönməz və əbədidirsə, bu, Heydər Əliyevin müstəsna xidmətləri sayəsində mümkün olmuşdur. Bu gün Azərbaycan dünya birliyinin tamhüquqlu üzvü kimi tanınırsa, dünya inteqrasiya proseslərində fəal iştirak edirsə, bu, dahi şəxsiyyət Heydər Əliyev siyasi uzaqgörənliyi və qüdrətinin təzahürüdür.

Təbii ki, ulu öndərin siyasi irsinin öyrənilməsi hansısa konkret zaman çərçivəsi ilə məhdudlaşdırıla bilməz. Bu mənada Azərbaycanın müasir tarixində özünəməxsus yeri olan Heydər Əliyev ideyaları hələ uzun illər qəlblərdə yaşayacaq, bu dahi şəxsiyyətin xalqımız qarşısındakı müstəsna xidmətlərinin ictimai–siyasi mahiyyəti gələcəkdə də tədqiqatçılar tərəfindən diqqət mərkəzində saxlanılacaqdır.

Heç də təsadüfi deyildir ki, əsası ulu öndər tərəfindən qoyulmuş uzunmüddətli yüksəliş strategiyalarının reallaşdırılması nəticəsində ötən dövr ərzində Azərbaycan daha da inkişaf etmiş, yeni–yeni regional proqramlar, Azərbaycanın hərtərəfli, daha dinamik inkişafı, xoşbəxt gələcəyimiz naminə islahatlar həyata keçirilmiş və bu proses sürətlə davam etməkdədir.

Bu islahatların məntiqi davamı olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2006–cı il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı (MFP) təsdiq edilmişdir.

Lakin zaman dəyişdikcə hər yeni inkişaf mərhələsi insan hüquqlarının təmin olunması sahəsində yeni məqsədlər, prioritetlər, problemlər və onların həlli məsələlərini doğurur ki, bu da yeni islahatların zəruriliyini gündəmə gətirir.

Odur ki, insan hüquq və azadlıqlarının daha səmərəli təmini istiqamətində yeni prioritetlər nəzərə alınaraq, insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ–hüquqi bazanın və hüquq müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 dekabr 2011–ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində ilk Milli Fəaliyyət Proqramı təsdiq edilmişdir.

Sevindirici haldır ki, Avropa Şurasının Baş katibi T.Yaqlandın ölkə başçısına ünvanladığı məktubda qeyd olunan Proqramın təsdiq edilməsi alqışlanır və mühüm əhəmiyyətli sənəd kimi dəyərləndirilir.

Ölkəmizdə səfərdə olan xarici nümayəndə heyətləri də, o cümlədən AŞPA Monitorinq Komitəsinin həmməruzəçiləri C.D.Qrex və P.Aqramunt, Avropa Şurasının İnsan hüquqları üzrə Komissarı N.Müjneks, həmçinin digər nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri və beynəlxalq ekspertlər də Ombudsmanla görüşdə belə bir Proqramın qəbulunu alqışlamışlar.

Yeni insan hüquqları üzrə dövlət Proqramı ölkədə insan hüquq və azadlıqlarının təmin olunmasını sözün əsl mənasında keyfiyyətcə tam yeni mərhələyə qaldırmışdır.

Çoxşaxəli problemləri özündə ehtiva edən bu Proqram insan hüquqlarının müdafiəsinin səmərəliliyinin artırılmasının əsas istiqamətlərini də müəyyən etmişdir: Normativ–hüquqi bazanın təkmilləşdirilməsi; Əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi; Dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi; İnsan hüquqları sahəsində tədris, elmi–analitik və maarifləndirmə tədbirləri; İnsan hüquqları sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq; çox önəmlidir ki, bu sənəddə Milli Fəaliyyət Proqramının həyata keçirilməsinin icra mexanizmi əlaqələndirilməsi, monitorinqi və qiymətləndirilməsi də özünə yer tapmışdır.

Proqramın icrasına müstəqil monitorinq mexanizmi qismində isə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili müəyyən edilmişdir.

Həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin geniş əhatəliliyinə və öz praktiki əhəmiyyətinə görə bu qəbildən olan digər proqramlardan kifayət qədər fərqlənən belə bir Milli Fəaliyyət Proqramının səmərəli icrasına nail olmaq böyük təşkilatçılıq işi, dövlət qurumları, QHT–lərin və icmaların davamlı, mütəşəkkil və müntəzəm əməkdaşlığını tələb edir.

Göründüyü kimi, Azərbaycanda insan hüquqlarının inkişafına və təkmilləşdirilməsinə daim böyük diqqət yetirilir və ölkə prezidentinin yürütdüyü siyasət məhz insan hüquq və azadlıqlarının səmərəli təmininə xidmət edir.

Ölkəmizin ildən–ilə daha da yüksək templə iqtisadi inkişafı qarşıya qoyulan ən mürəkkəb və çətin vəzifələrin öhdəsindən gəlməyə imkan yaradır.

Hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyəti yaradılması, bazar iqtisadiyyatının bərqərar edilməsi məqsədi ilə genişmiqyaslı islahatlar davam etdirilir. İnsan hüquqları və azadlıqları etibarlı surətdə təmin edilir, ölkəmizin Avropa xalqları ailəsində nüfuzu ilbəil artır.

Azərbaycanın yeni–yeni uğurları, həyata keçirilən islahatlar, beynəlxalq nüfuzu, BMT Təhlükəsizlik Şurasına qeyri–daimi üzv seçilməsi davamlı inkişafa və insan hüquqlarının etibarlı təmininə xidmət edən məqsədyönlü fəaliyyətin nəticəsidir.

Hazırda Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu mərhələnin əsas hədəfi insan hüquqlarının daha səmərəli təmini, əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır.

Dünyada yaranmış yeni şərait qarşıya yeni vəzifələr qoyur. Məhz bu vəzifələrin həyata keçirilməsi baxımından ölkə başçısının 2020–ci illədək dövr üçün ölkənin perspektiv inkişaf hədəf və istiqamətlərini müəyyənləşdirmək və onların gerçəkləşdirilməsini təmin etmək məqsədi ilə 2012–ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyası mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin cəmiyyətdə ictimai–siyasi sabitliyin möhkəmləndirilməsi, demokratiyanın inkişafı, vətəndaşların hüquq və azadlıqlarının qorunması istiqamətindəki fəaliyyəti nəticəsində bu gün Azərbaycan hüquqi dövlət ideyasının reallaşdığı, şəxsiyyət, vətəndaş və cəmiyyət münasibətlərinin demokratik prinsiplərə əsaslandığı, müxtəlif millətlərin dilinin, dininin, mədəniyyətlərinin qovuşması nəticəsində yaranmış, tolerantlıq prinsiplərinə sadiq, intellektual mühitin formalaşdığı bir məkana çevrilmişdir.

Heydər Əliyev dühasının bəhrələri bu gün bütün sahələrdə aşkarlıqla görünür. Bu bizim iqtisadi inkişaf tariximizdə görünməmiş sıçrayışda, sosial problemlərin həllində, insan hüquq və azadlıqlarının təmin olunması sahəsində əldə olunmuş nailiyyətlərdə öz təzahürünü tapır. Beləliklə, ölkənin hər bir vətəndaşının heç bir ayrı–seçkiliyə yol vermədən siyasi, vətəndaş, iqtisadi, sosial, mədəni və digər hüquqlarının təmin olunması üçün real şərait yaradılmışdır. Bu isə istər ölkə əhalisi, istərsə də beynəlxalq ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır.

2003–cü ildən hazırkı vaxta kimi ümumi daxili məhsul üç dəfə, qeyri–neft ümumi daxili məhsulu isə 2,4 dəfə artmış, strateji valyuta ehtiyatları isə 28,8 dəfə artaraq 46 milyard dolları ötmüşdür.

2004–2008 və 2009–2013–cü illəri əhatə edən regionların sosial–iqtisadi inkişaf proqramlarının uğurlu icrası nəticəsində 100–dək sənaye müəssisəsi istifadəyə verilmiş, 1 milyon 200 min, o cümlədən 2012–ci ildə 93 mini daimi olmaqla, 117 min yeni iş yeri açılmış, işsizliyin səviyyəsi aşağı düşərək 5,2 faiz, yoxsulluğun səviyyəsi 7,6 faizdən enərək 6 faiz, orta aylıq əmək haqqı isə 9,1 faiz artaraq, 391,4 manat təşkil etmiş, 268 məktəb, 62 bağça, 40 səhiyyə, 27 idman, 29 mədəniyyət və digər sosial obyektlər tikilmiş və ya əsaslı təmir olunmuşdur.

Dünya Bankının hesabatlarında biznesin aparılması üçün Azərbaycan yüksək yerlərdə qərar tutmuşdur. Dünya İqtisadi Forumunun – “Doing Business–2013″ hesabatında ölkəmiz dünyanın 50 ən rəqabətqabiliyyətli iqtisadiyyatları qrupuna daxil olaraq 46–cı yerə qalxmış, MDB respublikaları arasında isə birincilik mövqeyini saxlamışdır.

Yeri gəlmişkən qeyd edək ki, insan hüquq və azadlıqlarının müdafiəsində mühüm vasitə olan, ulu öndərin banisi olduğu Ombudsman təsisatında 19 aprel 2013–cü il tarixdə ümummilli lider Heydər Əliyevin anadan

olmasının 90–ci ildönümünə həsr olunmuş "Heydər Əliyev və müstəqil Azərbaycanda insan hüquqlarının inkişafı" mövzusunda elmi–praktiki konfrans keçirilmişdir. Tədbirdə Milli Məclisin deputatları, həmçinin digər dövlət qurumları, qeyri–hökumət təşkilatlarının nümayəndələri və KİV təmsilçiləri iştirak etmişlər.

Müvəkkil bu il xalqımızın ulu öndər Heydər Əliyevin anadan olmasının 90 illiyini böyük təntənə ilə qeyd etdiyini, dünya şöhrətli ictimai–siyasi və dövlət xadiminin Azərbaycanın dövlətçilik tarixində göstərdiyi əvəzsiz xidmətləri diqqətə çatdıraraq, onun xalqını ən çətin vəziyyətlərdən çıxardığını, düzgün yol göstərdiyini, taleyüklü məsələlərin həllində daim müdrik məsləhətçi kimi çıxış etdiyini bildirmişdir.

Ombudsman "Heydər Əliyev insan hüquqları sahəsində yeni strategiyaların banisidir" mövzusunda məruzəsində qeyd etmişdir ki, ümummilli liderin həyata keçirdiyi məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq, ölkəmizdə sabitlik bərqərar olunmuş, insan hüquq və azadlıqlarını müdafiəsi istiqamətində mühüm islahatlar həyata keçirilmişdir. Öz müstəqilliyini bərpa etmiş və hüquqi, demokratik dövlət quruculuğu yolunu tutan Azərbaycan Respublikasında həyata keçirilmiş mütərəqqi dəyişikliklərin məhz Prezident Heydər Əliyevin adı ilə bağlı olduğu, onun respublikamızın hər bir sahəsinin, iqtisadiyyat, elm, təhsil və mədəniyyətinin inkişafına, o cümlədən insan hüquq və azadlıqlarının müdafiəsi və təmininə böyük diqqət göstərdiyi vurğulanmışdır.

Elmi–praktiki konfransda Milli Məclisin deputatı, yazıçı–publisist E.Axundova "Heydər Əliyev: Liderliyin fenomeni", Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri, akademik Z.Səmədzadə "Azərbaycan dövlətinin uzunmüddətli inkişafında Heydər Əliyev strateqiyaları", ədliyyə nazirinin müavini V.Zahirov "Ümummilli lider Heydər Əliyev və Azərbaycan ədliyyəsinin təşəkkülü", Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini S.Qəhrəmanova "Heydər Əliyev və dövlət qadın siyasəti" Azərbaycan Respublikasının Prezidenti yanında QHT–lərə Dövlət Dəstəyi Şurasının sədri, millət vəkili A.Quliyev "Heydər Əliyev siyasətində vətəndaş cəmiyyəti", Baş Prokurorluğun idarə rəisi, N.Hüseyinov "Ümummilli liderin Azərbaycan prokurorluğunun inkişafındakı müstəsna rolu", Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini G.Fərhadov "Ulu öndər Heydər Əliyevin qaçqın və məcburi köçkünlərə diqqət və qayğısı", DİN–in idarə rəisi F.Quliyev "Daxili işlər orqanlarının formalaşmasında ümummilli liderin rolu" mövzularında məruzələr etmiş, xalqımızın böyük oğlunun nəcib əməllərinin, parlaq ideyalarının həmişəyaşarlığını vurğulamışlar.

90 illik yubileyini qeyd etdiyimiz ulu öndər Heydər Əliyevin siyasəti nəticəsində əsası qoyulmuş inkişaf strategiyalarını uğurla davam etdirən Prezident İlham Əliyevin tərəqqi və quruculuq ideyalarının öz əksini tapdığı "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında müəyyən edilmiş hədəflər bir daha göstərir ki, bütün sahələri əhatə edən irimiqyaslı tədbirlərin həyata keçirilməsi bundan sonra da ölkəmizin davamlı inkişafını və vətəndaşlarımızın sosial–iqtisadi vəziyyətinin yaxşılaşmasını və bununla da bütövlükdə insan hüquqlarının səmərəli müdafiəsini təmin edəcəkdir.

**"Respublika".-**2013.-20 aprel.-N 82.-S.4.; 2013.-21 aprel.-N 83.-S.2

# AZƏRBAYCAN İQTİSADİYYATINDA HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ

**Şəmsəddin HACIYEV**
Milli Məclisin komitə sədri,
Azərbaycan Dövlət İqtisad
Universitetinin rektoru

Azərbaycan tarixinin son yarım əsrlik dövründə, çağdaş inkişafımızın istənilən prizmadan qiymətləndirilməsi, xalqımızın Ümummilli lideri - Böyük Azərbaycanlı Heydər Əliyevin misilsiz xidmətlərini nəzərə almadan mümkün deyildir. Məhz bu baxımdan, Ulu öndərin iqtisadi inkişafımızın təmin edilməsindəki rolunun hərtərəfli qiymətləndirilməsi bütün dövrlərdə iqtisad elminin xüsusi tədqiqat obyekti olaraq qalacaqdır. Ulu öndərin iqtisadi idarəetmə sahəsindəki böyük irsi həm nəzəri-metodoloji, həm də praktiki baxımdan elmi cəhətdən qiymətləndirilməlidir. İnzibati-amirlik prinsipinə, mərkəzləşdirilmiş planlı idarəetmə və heterogen inkişaf səviyyələrinə malik olan böyük imperiyanın kiçik ərazisi olan Sovet Azərbaycanının iqtisadiyyatında, ötən əsrin 70-ci illərində aparılan formaca konspirativ, mahiyyətcə sistemli və radikal yenidənqurma fəaliyyəti, çoxcəhətli və strateji əhəmiyyətli tədbirlər olmaqla yanaşı, yüksək elmi əsaslara malik olmuşdur.

Sovet idarəçilik və təsərrüfatçılıq sistemi çərçivəsində, SSRİ-nin geridə qalmış respublikalarından biri olan Azərbaycanın rəhbəri seçildikdən sonra Heydər Əliyevin çoxcəhətli fəaliyyətinin mühüm istiqamətini respublika iqtisadiyyatının dirçəldilməsi problemləri təşkil etmişdir. Bu çoxşaxəli və strateji xarakterli fəaliyyətin əsas istiqamətlərini və sosial-siyasi nəticələrini, əldə olunmuş statistik parametrlərə toxunmayaraq, qısaca olaraq aşağıdakı kimi ifadə edə bilərik:

* İqtisadiyyatın real sektorunun mühüm fəaliyyət istiqamətlərinin, o cümlədən, kənd təsərrüfatı və sənayenin mövcud sahələrinin məhsuldarlığının artırılması və coğrafi yerləşdirilməsinin ardıcıl olaraq təkmilləşdirilməsi nəticəsində respublika ərazisinin mövcud istehsal sahələri daxilində düzgün ixtisaslaşmasına və məhsuldarlığın, səmərəliliyin nisbi artımına nail olunmuşdur.

* Sənaye sahələrinin coğrafiyasını genişləndirməklə, yeni sənaye rayonlarının formalaşdırılması və daha vacibi, emal dərinliyi yüksək olan sənaye sahələrinin, o cümlədən, elektrotexnika, elektronika, məişət texnikası, hərbi sənaye və s. sahələrin yaradılması və inkişafı təmin edilmiş, bütövlükdə iqtisadiyyatın yeni dəyər yaratması potensialı əsaslı şəkildə genişləndirilmişdir.

* İqtisadi inkişafın nəticəliliyi və səmərəliliyinin artırılmasında ənənəvi olmayan, bütün dünyada həlledici amillərdən birinin - işçi qüvvəsinin maddi və mənəvi stimullaşdırılması olduğunu dərk edərək, ilk dəfə olaraq Azərbaycan əməkçisinin maddi güzəranının yaxşılaşdırılması, onların gəlirlərinin artırılması, dövlətin ən ali mükafatlarına təqdim edilməsi, seçkili dövlət idarəetmə orqanlarında fəal iştirakının təmin edilməsi və bütövlükdə sadə əməkçilərin cəmiyyətin elitar təbəqəsinə daxil olmasının mümkünlüyünün təcrübədə təsbit edilməsi, iqtisadi fəaliyyətin cəmiyyətin və dövlətçiliyin bazisi olması ideyasını təsdiqləmiş oldu.

* Ulu öndər Heydər Əliyevin həmin dövrdəki mühüm xidmətlərindən biri də iqtisadi idarəetmədə yeni yanaşmanın formalaşdırılması hesab edilməlidir. Buraya, respublika rəhbərliyinin mütəmadi olaraq, hətta ən ucqar ərazilərdə yerləşən əkin sahələri və sənaye müəssisələri ilə yerində tanış olması, mövcud problemlərin aşkarlıq şəraitində kollegial həllinin axtarılması, elm, mədəniyyət və incəsənət xadimlərinin bilavasitə sadə əməkçilərlə iş yerində görüşlərinin təşkili və s. kimi addımlarla əməyin yeni mənəvi stimullaşdırılma sisteminin formalaşdırılması aid edilə bilər.

SSRİ dövründə Heydər Əliyevin respublikaya rəhbərliyinin iqtisadiyyatda yaratdığı nəticələrin sadalanan sayını çoxaltmaq və genişləndirmək mümkündür. Lakin, eyni zamanda, təəssüflə qeyd etməyi vacib hesab edirik ki, 1969-1982-ci illərdə iqtisadiyyatımızın artıq formalaşdırılmış, fəaliyyətdə olan işlək mexanizmli sistemi, qısa bir müddət ərzində, 1987-1993-ci illərdə diletant idarəçiliyin nəticəsində əsaslı deqradasiyaya məruz qaldı. Ona görə də, ölkəmizdə dövlət müstəqilliyinin yenidən bərpası dərin iqtisadi tənəzzüllə eyni vaxta təsadüf etdi. Bu baxımdan ötən dövrdə ölkə iqtisadiyyatının ümumi inkişafının qiymətləndirilməsində iqtisadi sistemin formalaşması ilə yanaşı, böhranla mübarizə və transformasiya faktorunun rolu istinad nöqtəsi hesab oluna bilər. Belə ki, bu illərdə Azərbaycanda aparılan iqtisadi siyasətin ən mühüm xüsusiyyəti inkişafın əsaslı islahatlar şəraitində təmin olunmasıdır.

Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonrakı ilk illərdə (1991-1993) iqtisadi idarəetmədə islahat xarakterli bəzi tədbirlərin aparılmasına cəhd edilsə də, bütövlükdə sistemli və ardıcıl siyasətdən əsər-əlamət yox idi. Əslində, dövlətin məqsəd və strateji hədəflərini ifadə edən konseptual, ideoloji baxışlar mövcud deyildi.

Müstəqil Azərbaycan dövlətinin inkişaf və transformasiya hədəfləri ilk dəfə 1993-cü ilin iyun ayının 15-də, xalqın təkidi ilə Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilmiş Heydər Əliyevin parlamentin

tribunasındakı ilk çıxışında bəyan olunmuşdur: "Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan haqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdır".

Ulu öndər haqlı olaraq qeyd edirdi ki, "İqtisadi sahədə strateji yolumuz respublikada bazar iqtisadiyyatına keçmək üçün iqtisadi islahatlar aparmaqdan və tədricən Azərbaycanda bütün sahələrdə sərbəst iqtisadiyyat - bazar iqtisadiyyatı formalarını tətbiq etməkdən ibarətdir".

Ulu öndərin bu sözləri müasir Azərbaycanın çağdaş iqtisadi inkişaf strategiyasında sistemli transformasiyanın başlanğıcı hesab edilməlidir. Ulu öndər çıxışında, "İstədiyimiz məqsədlərə çatmaq üçün vəzifə iqtisadiyyatın bütün sahələrində islahatlar aparmaqdan və bu islahatlar vasitəsilə Azərbaycanın mövcud iqtisadiyyatını sərbəst iqtisadiyyat prinsipləri əsasında irəlilətməkdən ibarətdir" deməklə, faktiki olaraq, islahatların istiqamətini göstərirdi və xüsusi qeyd edirdi ki, "Bazar iqtisadiyyatı prinsiplərini tətbiq edərək, sərbəst iqtisadiyyata geniş yol verərək və onu əsas yol hesab edərək, bunların hamısını əhalinin bütün təbəqələrinin rifah halının, sosial vəziyyətinin yaxşılaşmasına yönəltməliyik".

Heydər Əliyevin inkişaf strategiyası, dərin elmi məntiq üzərində qurulsa da, O, dahiyanə tərzdə dünya təcrübəsinin dərslərindən müdrik nəticələr çıxararaq qeyd edirdi ki, "Azərbaycanda iqtisadi islahatlar ideologiyaya əsasən deyil, real həyat həqiqətlərinə uyğun aparılacaq".

Heydər Əliyevin iqtisadi islahatların həyata keçirilməsinə baxışlarını səciyyələndirən ən mühüm cəhət - islahatların gerçəkləşdirilməsinin öncül istiqamətlərinin düzgün və məntiqli ardıcıllıqla seçilməsindən ibarət olmuşdur.

Təcrübəli dövlət xadimi kimi Heydər Əliyev 1993-cü ilin yayında, çox ağır sosial-siyasi və hərbi şəraitdə belə, iqtisadiyyatda ciddi addımlar atılmasının zərurətini aydın görürdü. Məhz bu yanaşmadan çağdaş Azərbaycanın iqtisadi sisteminin yenidən qurulması baxımından islahatların ilk vacib addımı, milli valyutanın ölkə ərazisində yeganə ödəniş vasitəsi elan olunması hesab edilir. Ulu öndər Heydər Əliyevin bu qərarı ilə, əslində ilk dəfə, ölkənin bütöv iqtisadi məkanının yaradılmasına başlandı.

Heydər Əliyev Azərbaycan Prezidenti kimi, iqtisadi tənəzzülün qarşısının alınması və dirçəlişin təmin olunması üçün ciddi səylər göstərirdi. Ona görə də, dünyanın iqtisadi inkişafında baş verən proseslər və ölkəmizin həmin dövrlərdəki ağır vəziyyəti nəzərə alınaraq, iqtisadi dirçəlişin təmin edilməsi üçün xarici investisiyaların cəlbi prioritet vəzifə kimi qarşıya qoyuldu. Müdrik rəhbərin ardıcıl səyləri və qətiyyəti sayəsində çox qısa zamanda Azərbaycana böyük həcmdə investisiya qoyulması barədə çoxtərəfli sazişlər imzalandı. Beləliklə, Azərbaycanda daxili siyasi sabitliyin təsdiqi kimi, 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə ölkənin dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində sıçrayış baş verdi. Fərəhlə qeyd etmək vacibdir ki, ötən 20 ilin nəticələri bu qərarın dahiyanə düşüncənin və böyük siyasi iradənin nəticəsi olmasını və fövqəladə əhəmiyyətliliyini təsdiq etdi.

Həmin dövrün üçüncü ən mühüm hadisəsi, ictimai-siyasi həyatımızda, o cümlədən, iqtisadi sistemdə yeni eranın bünövrəsini qoyan müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulu oldu. Məhz yeni Konstitusiya demokratik dəyərlərə əsaslanan liberal bazar iqtisadiyyatının qurulmasının legitimliyini təsdiq etdi. Xüsusi mülkiyyətin, azad sahibkarlığın, yeni torpaq münasibətlərinin, dünya iqtisadiyyatına inteqrasiyanın hüquqi əsasları təsbit edildi və dövlətin idarə edilməsində müstəsna əhəmiyyəti olan hakimiyyətin bölgüsü baş verdi. Bütün bunlar Azərbaycanda genişmiqyaslı iqtisadi islahatların məhz 1995-ci ildən başlandığını söyləməyə tam əsas verir.

Bazar iqtisadiyyatına, liberal və demokratik dəyərlərə əsaslanan iqtisadiyyata keçid dövrünü yaşayan ölkəmizin ötən dövrdəki sosial-iqtisadi inkişaf yolu da kifayət qədər hamar olmamışdır. Bütövlükdə, Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının islahatlaşdırılması və inkişafında xidmətlərini aşağıdakılarla ifadə etmək olar:

- dövlət müstəqilliyi şəraitində iqtisadi sistemin yaradılması və inkişafı strategiyasının əsas prinsiplərinin müəyyənləşdirilməsi;
- Azərbaycanın iqtisadi islahatlar modelində əsas aparıcı həlqələrin müəyyənləşdirilməsi;
- iqtisadi islahatlar vasitəsi ilə yeni iqtisadi-istehsal strukturunun formalaşdırılmasının mühüm məqam kimi dəyərləndirilməsi;
- iqtisadi idarəetmədə dövlətin rolunun müəyyənləşdirilməsində abstrakt nəzəriyyələr və xarici təcrübədən daha çox milli iqtisadi təfəkkürə önəm verilməsi;
- neft gəlirlərindən istifadənin gələcəyə istiqamətlənmiş strategiyasının formalaşdırılması;
- beynəlxalq iqtisadi inteqrasiyada çoxqütblük modelinə önəm verilməsi;
- iqtisadi inkişaf layihələrinin ölkənin qlobal maraqlarına istiqamətləndirilməsi;
- dövlətin iqtisadi idarəetmə funksiyalarının aşkarlıqla həyata keçirilməsi vasitəsilə dövlət siyasətinin geniş əhali tərəfindən dəstəklənməsinin təmin edilməsi.

Qeyd olunanlar və qeyri-iqtisadi xarakterli kənar təsirlərin fonunda əldə olunmuş fenomenal nəticələr sübut edir ki, Heydər Əliyevin bilavasitə dövlət rəhbəri kimi formalaşdırdığı milli iqtisadi inkişaf strategiyası əslində, elmi əsaslara söykənən, strateji milli maraqlara xidmət edən, demokratik dəyərlərə malik və dünyaya açıq, sosialyönümlü iqtisadi inkişaf modelinə çevrilmişdir.

Azərbaycanın iqtisadi inkişafının xüsusi model kimi identifikasiyası bir neçə məqamla şərtlənir. Birinci, çox ağır geoiqtisadi fonda iqtisadi inkişafın bərpa edilməsidir;

İkinci, iqtisadi inkişafın təmin edilməsində Azərbaycanın istifadə etdiyi alət və vasitələrdir;

Üçüncü, iqtisadi inkişafın daxili mənbələrinin düzgün istifadəsi strategiyalarından ibarətdir.

Azərbaycan modelinin daha mühüm bir dominantı dövlətin iqtisadi inkişaf və iqtisadi idarəetmədə rolu ilə bağlıdır. Ölkədə ümumdaxili məhsulun istehsalında özəl sektorun payının 85 faizə çatmasına baxmayaraq, dövlətin iqtisadi fəaliyyətdə tənzimləyici təsiri yetərincə güclüdür. Bu, dövlət vəsaitlərinin məqsədəuyğun və diversifikasiyanı təmin edən şaxələndirilmiş istifadəsi metodu vasitəsilə daxili bazarın aktivliyinin qorunmasında əks olunur.

Sonuncu məqam, 5 ilə yaxın tüğyan edən böhran və tənəzzül dalğaları fonunda Azərbaycanda davam edən dayanıqlı sosial-iqtisadi inkişafda özünü göstərir. Belə ki, milli inkişaf modelinin daha bir özəlliyi dövlətin iqtisadi siyasətinin inkişafın davamlılığı, dayanıqlılığı və tarazlığına hədəflənməsi hesab edilməlidir. Bu iqtisadi siyasətdə populyar tədbirlərə yox, real nəticəyə, qısa deyil, uzunmüddətli məqsədlərə üstünlük verilməsi və dövlətin iqtisadi fəaliyyətinin qiymətləndirilməsinə heç də həmişə marjinal meyarlarla yanaşılmamasında ifadə edilir. Bu məqam ölkə miqyasında infrastrukturun əsaslı modernləşdirilməsi, regionların sosial-iqtisadi inkişafının ciddi dəstəklənməsi, məcburi köçkünlərin, şəhid və əlil ailələrinin həyat şəraitinin yaxşılaşdırılması üçün ardıcıl tədbirlərin həyata keçirilməsində bariz şəkildə ifadə olunur.

Azərbaycan modelinin növbəti mühüm bir məziyyəti də milli iqtisadi sistemin dünya təsərrüfat sisteminə inteqrasiyasının özünəməxsusluğu ilə şərtlənir. İqtisadiyyatın açıqlıq səviyyəsi yetərincə yüksəkdir, lakin milli iqtisadi sistem arzuolunmaz kənar təsirlərdən çevik və güclü qorunma mexanizminə malikdir. Beynəlxalq maliyyə böhranı şəraitində Mərkəzi Bankın daha çox daxili mənbələrə əsaslanması faktı, yəni bank sistemimizin bir çox ölkələrdən fərqli olaraq, şirnikləndirici əcnəbi mənşəli böyük vəsaitlərin cəlbinə ənənəvi olaraq önəm verməməsi ölkəni ciddi itkilərdən qorudu. Mərkəzi Bank tərəfindən kommersiya banklarına hərtərəfli yardım siyasətinin həyata keçirilməsi isə beynəlxalq böhranın təsirlərinə qarşı səmərəli kompensasiya effektini əldə etməyə imkan verdi.

Digər tərəfdən, hökumət böhran şəraitində bir çox ölkələrdən fərqli olaraq daxili bazarın aktivliyinin qorunması üçün büdcə vəsaitlərinin istifadəsində ciddi qənaətlərə yol vermədi. Eyni zamanda, xarici iqtisadi əlaqələrimizin bütövlükdə şaxələndirilmiş xarakterini də vurğulamaq vacibdir. İki və çoxtərəfli dövlətlərarası ticarət-iqtisadi əməkdaşlıq müqavilələri, inteqrasiya birliklərində məqsədyönlü fəaliyyət, nəqliyyat-tranzit əlaqələrinin bir-birini tamamlayan çoxelementli və çoxmarşrutlu sistemi və s. ölkədə inkişafın dayanıqlığına müsbət təsir göstərmişdir.

Beləliklə, tam əminliklə vurğulamaq olar ki, Ulu öndər Heydər Əliyevin formalaşdırdığı Azərbaycanın iqtisadi inkişaf modeli, elmi əsaslara söykənən, milli maraqlara xidmət edən, demokratik dəyərlərə malik, dünyaya açıq, sosialyönümlü iqtisadi inkişaf modelidir

Son 10 ildə Azərbaycan iqtisadiyyatı özünün inkişaf xüsusiyyətlərinə görə dünyanın lider ölkəsinə çevrilməklə bərabər, tamamilə yeni istiqamət almışdır. Bu özünü ilk növbədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bəyan etdiyi kimi ölkəmizin "stabillikdən inkişafa doğru" tərəqqi strategiyasının məntiqi nəticəsi hesab olunmalıdır.

Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının hesabatlarında, Azərbaycanın iqtisadi yüksəlişi və həyata keçirilən sistemli iqtisadi islahatlar mütəmadi olaraq öz yüksək qiymətini almışdır. 2008-ci ilin yekunlarına əsasən, ölkəmiz dünyada "Lider - reformator " ölkə elan edilmişdir. BMT-nin İnkişaf Proqramının əhalinin rifah səviyyəsini əks etdirən İnsan İnkişafı Hesabatına əsasən, Azərbaycan 169 ölkə arasında 2005-ci ildə tutduğu 101-ci yerdən 34 pillə irəliləyərək, 2010-cu ildə 67-ci yerə yüksəlmişdir. 2000-2010-cu illər üzrə ölkəmiz insan inkişafı indeksinin orta illik artım tempinə görə MDB məkanında birinci yerə layiq görülmüş və "orta insan inkişafı" ölkələri qrupundan "yüksək insan inkişafı" qrupuna keçmişdir. Ölkədə həyata keçirilən siyasətin uğurlu nəticələri digər nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapmışdır. Dünya İqtisadi Forumu tərəfindən 2012-ci il üçün hazırlanmış "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan MDB ölkələri arasında yenə də birinci olmuşdur. "Standard and Poors" Beynəlxalq Reytinq Agentliyi 2009-2010-cu illər üzrə ölkə reytinqini "Stabil"dən "Pozitiv"ə yüksəltmiş, "Fitch Ratings" Agentliyi ölkəmizə ilk dəfə olaraq investisiya reytinqi vermişdir. Ölkəmizin yüksək rəqabət qabiliyyətliliyini təmin edən əsas amil makroiqtisadi şəraitdir. Bu indeksin müəyyən olunmasında istifadə olunan "hökumətin büdcə balansı" subindeksinə görə Azərbaycan 5-ci,

“məcmu əmanət norması “subindeksinə görə 8-ci, “dövlət borcu” subindeksinə görə isə 12 -ci yeri tutur və dünyanın bir çox inkişaf etmiş ölkələrini üstələyir.

Azərbaycanın son illərdəki inkişaf xronikasının qısa icmalı, müstəqillik dövründə ölkəmizdə aparılmış uğurlu iqtisadi siyasətin düzgünlüyü və nəticəliliyini ifadə edir, eyni zamanda, stabillikdən tərəqqiyə doğru yolda, möhtərəm Prezidentimizin dediyi kimi “... bizi daha da gücləndirir, bizi tam şəkildə əmin edir ki, bundan uzun illər, onilliklər sonra Azərbaycan ancaq və ancaq inkişaf yolu ilə gedəcək, Azərbaycan daha da çiçəklənəcək, daha da zəngin dövlətə çevriləcək və ölkə qarşısında duran iqtisadi və sosial problemlər daha da sürətlə həllini tapacaqdır”.

Əlbəttə, möhtərəm Prezidentin çox dəqiq və obyektiv qiymətləndirməsi mahiyyət etibarı ilə dövlətin iqtisadi inkişaf göstəricilərinə olan səmimi münasibətini dolğun əks etdirir. İqtisadi inkişafda çağdaş durumun dəyərləndirilməsində qiymətləndirmə və müqayisələrlə yanaşı, milli maraqların qorunmasına önəm verilməsi diqqət çəkən məqamdır. Çağdaş Azərbaycanın iqtisadi inkişafında müşahidə edilən mühüm özəllik inkişaf məqsədlərinin ardıcıllığının düzgün müəyyənləşdirilməsidir. Ölkədə investisiya qoyuluşlarının maliyyələşdirilməsində dövlətin rolu artmaqdadır. Belə ki, 2013-cü ildə ölkədə əsas kapitala investisiya qoyuluşlarının 54,1 faizinin dövlətin payına düşəcəyi proqnozlaşdırılır.

Aparılmış hesablamalar göstərir ki, dövlətin həm istehlak, həm də investisiya xərcləri baxımından iqtisadiyyatda rolu böyükdür. Daxili tələbin dövlət büdcəsi xərcləri hesabına artması qeyri-neft sektorunun inkişafına da müsbət təsir göstərir. Son illərdə dövlətin özəl sektorun maliyyələşdirilməsində rolu artmışdır. 2004-2013-cü illərdə özəl sahibkarlığın inkişafı məqsədilə dövlət büdcəsindən Sahibkarlığa Kömək Milli Fonduna və Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyinə ayrılmış vəsaitlərin həcmi 1060,8 milyon manat olmuşdur. Son illər respublikamızda sosial təyinatlı xərclərin həcmində davamlı artım müşahidə edilməkdədir və dövlət büdcəsi xərclərinin əsas prioritetləri sırasında sosial xərclərin üstünlük təşkil etməsi, sosial islahatların dövlət tərəfindən dəstəklənməsi, sosial proqramların maliyyə təminatının gücləndirilməsi və təkmilləşdirilməsi məsələləri önəmli yer almışdır. Bunlar onu deməyə əsas verir ki, dünya iqtisadiyyatının təzadlı inkişafı şəraitində Azərbaycan Respublikası özünün sosial-iqtisadi inkişafı templərini qoruyub saxlamaqla yanaşı, iqtisadi imkanların genişlənməsi və potensialın daha da gücləndirilməsi və artırılması, ölkənin sosial təhlükəsizliyinin təmin olunması istiqamətində səfərbərliyə alınması, sosial xidmətlərin keyfiyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması, onların unvanlılığının və səmərəliliyinin artırılması istiqamətində ciddi addımlar atılır.

Regional inkişaf məsələləri hökumətin iqtisadi siyasətində 2003-cü ildən başlayaraq əsas dominantlardan birinə çevrilmişdir. Bu müddətdə bir neçə Dövlət Proqramı və ayrı-ayrı regionların inkişafı üzrə tədbirlər toplusu hazırlanaraq həyata keçirilmişdir. Regional inkişaf ölkə Prezidentinin daim qayğısı və diqqəti mərkəzindədir. Prezidentin regionlara mütəmadi səfərləri və bu səfərlərin bilavasitə yekunları kimi regionlarda hələ həllini tapmamış problemlər üçün Prezidentin Ehtiyat Fondundan vəsaitlərin böyük səxavətlə ayrılması təcrübəsi dünya miqyasında fenomenal yanaşma hesab edilə bilər.

Fikrimizcə, 2013-cü il iqtisadi siyasətimizin uğurlarının davam etdirilməsi və sosial-iqtisadi inkişafının yeni çağırışları baxımından mühüm mərhələ olacaqdır. Belə çağırışlar, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə hazırlanmış “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında verilmişdir.

Konsepsiyada göstərildiyi kimi, hazırda Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu mərhələnin əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə önləyici inkişaf trendinin təmin olunması və əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır. Konsepsiyada müasir dünyada sosial-iqtisadi inkişafın yeni çağırışları fonunda milli inkişaf hədəflərimz aşağıdakılar kimi bir daha dəqiqləşdirilir:

* Qloballaşma şəraitində innovasiya fəaliyyətinin keyfiyyətcə yeni müstəvidə fəallaşması ilə bütün dünyada iqtisadi və təsərrüfat proseslərinin dəyişmə tempi, innovasiyaların yaranması və onların istehsal sahəsində tətbiqi misli görünməmiş şəkildə sürətlənir. Bu, əslində qloballaşmanın “müsbət yüklü” effektidir və ölkələrin innovasiyalar sahəsindəki nailiyyətlərdən, qabaqcıl texniki standartlardan və idarəetmədə yeni metodlardan yararlanmasına imkan verir.

* Növbəti illərdə dünya üzrə ticarətin istehsala nəzərən daha yüksək sürətlə artacağı, qloballaşma ilə birlikdə regional inteqrasiyanın da genişlənəcəyi gözlənilir. Beynəlxalq ticarət, rəqabət, intellektual mülkiyyət və ətraf mühitlə bağlı yeni standartların müəyyənləşəcəyi və bu istiqamətdə beynəlxalq təşkilatların rolunun güclənəcəyi ehtimal olunur.

* İnkişaf etməkdə olan ölkələrin məhsuldarlığa əsaslanan iqtisadi artıma nail olmaları və müqayisəli üstünlüyü olan yeni istehsal sahələrini formalaşdırmaları zəruridir. Belə bir şəraitdə Azərbaycanın qarşısında

duran əsas məsələ ənənəvi iqtisadiyyatdan “bilik iqtisadiyyatına” keçid və insan kapitalının adekvat inkişafının ön plana çəkilməsidir.

* Dünya iqtisadiyyatının əsas mərkəzləri arasında tarazlığın dəyişməsi, regional iqtisadi ittifaqların rolunun güclənməsi Azərbaycan üçün xarici iqtisadi inteqrasiya baxımından yeni imkanlar açır.

Əlbəttə, ötən 20 il ərzində milli dövlətçiliyimizin möhkəmləndirilməsi və sosial-iqtisadi inkişafın sürətləndirilməsi sahəsində görülən işlər sübut edir ki, biz bu çağırışlara layiqincə cavab vermək iqtidarındayıq. Böyük Azərbaycanlı Ulu öndərimizin dediyi kimi “Biz gələcəyə nikbinliklə baxırıq. Mən Azərbaycanın gələcəyini çox gözəl görürəm. Bizim hər gün gördüyümüz işlər və həyata keçirdiyimiz tədbirlər Azərbaycanın ardıcıl inkişafını təmin edəcəkdir”.

**“Yeni Azərbaycan”.-**2013.-23 aprel.-N 70.-S.4.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV İDEYALARI İŞIĞINDA

**Vilayət ƏLİYEV,**
Yeni Azərbaycan Partiyası Siyasi
Şurasının üzvü, əməkdar müəllim,
filologiya elmləri doktoru, professor.

Anadan olmasının 90–cı ildönümünü qeyd etdiyimiz ulu öndər Heydər Əliyev adı Azərbaycanın dirçəlişi yolunda əvəzsiz xidmətləri, müstəqil Azərbaycan dövlətinin formalaşması və inkişafı, ölkənin stabillik və inteqrasiya faktoruna çevrilmiş balanslı daxili və xarici siyasət konsepsiyasını işləyib hazırlaması, xalqın rifah və azadlığının etibarlı təminatı kimi çıxış edən iqtisadi islahatları ilə mahir dövlət başçısı və istedadlı siyasətçi kimi yaddaşlarda həkk olunmuşdur.

Heydər Əliyev kimi nadir insanlar bəşəriyyətin görkəmli tarixi şəxsiyyətlərindən sayılırlar. Onlar təkcə öz xalqlarının rifahı naminə deyil, bəşəriyyətin inkişafı, dünyada sülhün bərqərar olması naminə fəaliyyət göstərmiş, bütün təzyiqlərə sinə gərmişlər.

Milli–mənəvi dəyərlər hər xalqın, millətin, şəxsin kimliyini ortaya qoyur. Milli–mənəvi dəyərləri qoruyan, təkmilləşdirən, ona əməl edən xalq həmişə hörmətlə qarşılanmışdır. Zaman–zaman Azərbaycan torpağına çoxları gəlib–getmiş, hərəsinin də bir marağı, məqsədi olmuşdur. Sonda hamının gəldiyi nəticə bu olmuşdur ki, Azərbaycan və onun qonaqpərvər, zəhmətsevər, mübariz, qəlbində humanist ideyalar yaşadan xalqı hörmətə layiqdir. Əcnəbi səyyahlar, yazıçılar, alimlər, mədəniyyət xadimləri, dövlət başçıları öz xatirələrində bu məqamı həmişə dönə–dönə xatırlamışlar.

Etiraf etmək lazımdır ki, xalqımızın milli–mənəvi dəyərlərinin qorunmasında, onun dövlətçiliyin ayrılmaz tərkib hissəsinə və dövlət siyasətinin aparıcı qoluna çevrilməsində ümummilli lider Heydər Əliyevin müstəsna rolu və əməyi olmuşdur. Onun fəaliyyətində, əməllərində bir tamlıq vardır. Heydər Əliyev Azərbaycançılıq fəlsəfəsinin yaradıcısıdır. Azərbaycançılıq nədir? Bu sualın ən mükəmməl cavabını Heydər Əliyev vermişdir: “Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli–mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir”.

Milli–mənəvi dəyərlər, onların qorunması, yabançı təsirlərdən xilas olması, saflaşması, Azərbaycan xalqının dəyərli sərvəti kimi milli emblemə çevrilməsində böyük öndərimizin uzaqgörən siyasəti, əməli fəaliyyəti, verdiyi fərman və sərəncamlar, keçirdiyi tədbirlər və görüşlər, beynəlxalq kürsülərdən söylədiyi tarixi nitqlər, gənc nəslin milli–mənəvi dəyərlərə yiyələnməsi üçün verdiyi nəsihət və tövsiyələr, eləcə də özünün şəxsi nümunəsi əvəzsiz rol oynamışdır.

“Mən fəxr edirəm ki, azərbaycanlıyam”—deyən Heydər Əliyev xalqının ürəyində milli–mənəvi dəyərləri yaşatmaq üçün əbədi bir məşəl—Heydər Əliyev ideyalarından güc alan məşəli bizlərə bəxş etmişdir.

Son 20 il göstərdi ki, Azərbaycan xalqı torpağına, taleyinə, milli–mənəvi dəyərlərinə bağlı və olduqca sadiq bir xalqdır. Bu 20 il Azərbaycan türkünün oyanışı, müstəqil Azərbaycan Respublikasının dövlətçilik ənənələrinin bərpası illəridir. Bu illər Heydər Əliyevin əbədi olaraq Azərbaycana, övladı olduğu xalqın həyatına, dövlətçiliyimizə, gələcək taleyimizə qayıdışı, beynəlxalq arenada Azərbaycan bayrağının ucalması, Azərbaycan dilinin mötəbər kürsülərdə səslənməsi, böyük neft və qaz kontraktlarının bağlanması, “Bakı–Tibilisi–Ceyhan” neft kəmərinin çəkilməsi, dünya ölkələrinin Azərbaycan reallığını təsdiq etməsi, nəhayət, Azərbaycan intibahının çiçəklənməsi illəri kimi yadda qalacaqdır. Bu sıçrayışın, uğurun sirri və əsası nə idi?

Ölkəmizin hərtərəfli inkişafı Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışı, Azərbaycan prezidenti seçilməsi ilə başladı. Onun əldə edəcəyi uğurlar, dövlətçiliyimiz üçün zəruri olan proqram Heydər Əliyevin 10 oktyabr 1993–cü il tarixdə Prezidentin andiçmə mərasimindəki çox yığcam, düşünülmüş və müdrikcəsinə səslənən çıxışında öz əksini tapmışdır. Gəlin Azərbaycan dövlətçiliyinin bu tarixi proqramına bir daha nəzər salaq:

“Əlimi Qurani–Kərimə basaraq and içirəm ki, Azərbaycan xalqının milli və mənəvi ənənələrinə daim sadiq olacaq və bu ənənələrin Azərbaycanda bərqərar olmasına, yaşamasına təminat yaradacağam”.

Böyük öndər milli–mənəvi sərvətlər anlayışı deyərkən onu hamının başa düşdüyü dil, mədəniyyət, incəsənət, din və s.–dən daha geniş anlamda, fəlsəfi aspektdə götürürdü. Onun nəzərində Azərbaycan Respublikasının və onun xalqının ən qiymətli milli–mənəvi sərvəti bu ölkənin insanlarıdır. Ona görə də Heydər Əliyev insan amilini həmişə önə çəkirdi. Bakıda dünya azərbaycanlılarının I qurultayı keçirilərkən Heydər Əliyev soydaşlarımızı məhəbbətlə qarşılamış, arzu və təkliflərini dinləmişdi. Onlara, harada yaşamalarından asılı

olmayaraq Azərbaycan Respublikasını bir an da olsa, unutmamağı, doğma Vətənə xidmət etməyi, xalqımızın dilini, dinini, mədəni sərvətlərini xaricdə yaşatmağı, övladlarını azərbaycanlı kimi böyütməyi tövsiyə etmişdi.

Heydər Əliyev Dünya azərbaycanlılarının I qurultayında azəbaycançılıq ideologiyasının əsasını qoyan proqram xarakterli çıxışında deyirdi "…Azərbaycan xalqı böyük, qədim tarixə malikdir. Çoxəsrlik tariximizdə xalqımız bir çox sınaqlardan çıxmış, yaşamış, öz mənliyini itirməmiş, öz milliliyini itirməmiş, dünya sivilizasiyasına dəyərli töhfələr vermiş, dünya sivilizasiyasını zənginləşdirmişdir. Ancaq tarixin müxtəlif mərhələlərində azərbaycanlılar bəzi məhrumiyyətlərə düçar olmuşlar. Ona görə də bütün dünyaya səpələnmiş azərbaycanlıların birliyi, həmrəyliyi indi həm bizim üçün, müstəqil Azərbaycan dövləti üçün, həm də dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar üçün xüsusi əhəmiyyət kəsb edir… Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı —azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli–mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir — ədəbiyyatımız, incəsənətimiz, musiqimiz, şeirlərimiz, mahnılarımızdır, xalqımıza mənsub olan adət–ənənələrdir.

İnsan hansı ölkədə yaşamasından asılı olmayaraq gərək öz milliliyini qoruyub saxlasın. Dünyada, eyni zamanda assimilyasiya prosesi də var. Ancaq insanlar gərək daim öz milli–mənəvi dəyərlərinə, milli köklərinə sadiq olsunlar. Bizim hamımızı birləşdirən məhz bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır".

Heydər Əliyevin milli–mənəvi sərvətlərimizin qorunması və inkişafı yolunda fəaliyyəti çoxşaxəlidir. Onun bu sahəyə aid fərman və sərəncamları çox mətləblərdən xəbər verir: "1948–1953–cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi–etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" (18 dekabr 1997–ci il), "Azərbaycanlıların soyqırımı haqqında" (26 mart 1998–ci il), "Azərbaycan Xalq Cümhuriyyəti haqqında" (30 yanvar 1998–ci il), "N.Tusinin anadan olmasının 800 illiyi haqqında" (20 aprel 1997–ci il), "Kitabi–Dədə Qorqud" dastanının 1300 illik yubileyi haqqında" (23 fevral 1999–cu il), "C.Cabbarlının anadan olmasının 90 illiyi haqqında" (23 fevral 1999–cu il), "Naxçıvan Muxtar Respublikasının 75–ci ildönümü haqqında" (5 fevral 1999–cu il), "20 Yanvar faciəsinin 10–cu ildönümü haqqında" (16 dekabr 1999–cu il), "Dədə Qorqud heykəli" və "Dədə Qorqud dünyası tarixi–etnoqrafik kompleksinin yaradılması haqqında" (1 aprel 2000–ci il), "Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında" (13 iyun 2000–ci il), "R.Rzanın anadan olmasının 90 illiyi haqqında" (29 aprel 2000–ci il), "Dövlət dilinin təkmilləşdirilməsi haqqında" (18 iyun 2001–ci il), "Azərbaycan Respublikası Dövlət dil komissiyasının təşkilinin təsdiq edilməsi haqqında" (4 iyul 2001–ci il), "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" (9 avqust 2001–ci il), "Milli–mənəvi dəyərlərimiz haqqında" (13 avqust 2001–ci il), "Azərbaycan MEA–nın Naxçıvan bölməsinin təsis edilməsi haqqında" (8 avqust 2002–ci il), "Azərbaycanın mədəni sərvətlərinin dağıdılması və mənimsənilməsi ilə əlaqədar" (19 aprel 2002–ci il),"Bakı şəhərində İçərişəhər tarixi–memarlıq qoruğunun mühafizəsi və bərpası ilə bağlı bəzi tədbirlər haqqında" (18 fevral 2003–cü il) və s.

Heydər Əliyev milli–mənəvi dəyərlərin qorunmasında, təbliğində yazıçıların, yaradıcı insanların, alimlərin rolunu xüsusi vurğulayır, onların yaradıcılığına hörmətlə yanaşır, ziyalıların normal fəaliyyət göstərməsi üçün əlindən gələni edirdi. Yaradıcı insanlara təkcə maddi köməklə kifayətlənmir, onlara mənəvi dəstək verirdi. Keçirilən yubileylər, sərgilər, görüşlər, verilən fəxri adlar, ayrılan prezident təqaüdləri, bu istiqamətdə atılan addımların bir qismidir. Onda yaradıcı insanların yaşamağa, yaratmağa stimul verən ilahi bir qüdrət var idi. Onun işığına toplaşan ziyalılar yaxşı dərk edirdilər ki, həmişə olduğu kimi, bu görüşdə də Heydər Əliyev Azərbaycan xalqının milli–mənəvi dəyərləri ilə bağlı olduqca əhəmiyyətli bir fikir söyləyəcək, ziyalıları mühüm bir məsələyə səfərbər edəcəkdir.

Ulu öndər Azərbaycan xalqının milli–mənəvi dəyərlərini yaşadarkən, ilk növbədə, tariximizin maraqlı səhifələrini özündə yaşadan abidələrə, əsərlərə, şəxsiyyətlərə, ümumtürk dəyərlərinə daxil edilən əsərlərə üstünlük verirdi. Onun məqsədi "tariximizin görkəmli səhifələrini xalqımızın bugünkü və gələcək nəsillərinə, bütün dünyaya daha yaxşı tanıtmaq idi".

Bu baxımdan "Kitabi–Dədə Qorqud" dastanı bütün müdriklər kimi, Heydər Əliyevin də diqqətini daim cəlb etmişdir. O, bu dastanı Azərbaycan xalqının dünya mədəniyyət xəzinəsinə bəxş etdiyi ən qiymətli inci sayırdı. "Kitabi–Dədə Qorqud" elə bir sənət abidəsidir ki, burada Azərbaycan türklərinin dünyagörüşü, milli xarakteri, adət–ənənəsi, dini, fəlsəfi və psixoloji görüşləri, əxlaqı, dövlətçiliyi, ailə və cəmiyyət münasibətləri, Vətən, torpaq sevgisi, xalqın mübarizliyi, qəhrəmanlıq səhifələri, dilimizin şirinliyi, üslub rəngarəngliyi, humanizm və xeyirxahlıq kimi saf hisslər cəmlənmişdir. Bu əsərin təbliği, tədqiqi fonunda çox məsələləri öyrənmək mümkündür. Ona görə də "Kitabi–Dədə Qorqud" dastanı bütün elm sahələrinin tədqiqat obyekti olmuşdur.

Ümummilli liderimiz bütün bunları nəzərdə tutaraq 20 aprel 1997–ci il tarixdə oğuz türklərinin tarixini əks etdirən, yüksək bəşəri ideyaları tərənnüm etdirən "Kitabi–Dədə Qorqud" dastanının 1300 illik yubileyini keçirmək üçün tarixi fərman imzaladı. Heydər Əliyev bu yubileyin hazırlanmasında və keçirilməsində bütün ağırlığı öz üzərinə götürdü. Fərmanı xalq arasında sevinclə qarşılandı, bütün türk dünyası razılığını bildirdi.

Yubiley üzrə Dövlət Komissiyasının 8 aprel 1999–cu il tarixdə keçirilən iclasında onun müdrikcəsinə və uzaqgörənliklə dediyi kəlamlarda böyük həqiqətlər, onun arzu və istəyi, birliyimiz, yaddaşımız, gedəcəyimiz yol görünürdü. O deyirdi: "Kitabi–Dədə Qorqud" dastanı yubileyinin keçirilməsi ən böyük siyasi, mənəvi xarakter daşıyır və mədəniyyətimizə, ədəbiyyatımıza olan qayğını və münasibəti göstərir. Biz son illərdəki Azərbaycanda tariximizin görkəmli səhifələrini yad etmək, tariximizi bugünkü və gələcək nəsillərə daha da geniş anlatmaq, xalqımızın, millətimizin tarixini dünyaya nümayiş etdirmək məqsədi ilə bir çox yubiley mərasimləri keçirmişik. Bunlardan da hər birinin çox böyük faydası olubdur. Bu faydanı nə faizlə, nə miqdarla, nə də çəki ilə ölçmək olar. Ancaq əgər bir öçlü olsaydı, demək olardı ki, ən böyük ölçüyə malik faydalardır…"Dədə Qorqud" dastanı bizi bu gün, eyni zamanda birləşdirir, bir–birimizə yaxınlaşdırır. Birləşməyə də ehtiyac vardır. Bu, hamımız "onlar üçün də, bizim üçün də doğmadır. Amma bu, hamının olmaqla bərabər, xüsusən Azərbaycanındır, Azərbaycana məxsusdur. Bu da türk aləmində Azərbaycanın nə qədər görkəmli yer tutduğunu göstərir".

Azərbaycan xalqı və onun dilinin mənşəyi ilə bağlı son yüzilliklərdə elmi ədəbiyyatda ziddiyyətli, subyektiv fikirlər səslənmiş, saxta, qeyri–elmi tezislər yayılmışdır. Müasir Azərbaycanşünaslıq elmi, Heydər Əliyev və bu elmi yaradıb inkişaf etdirən sağlam düşüncəli alimlər anti–Azərbaycan fikirlərinin çürük, əsassız olduğunu sübut etmişlər. "Dədə Qorqud" dastanının 1300 illik yubileyinin keçirilməsi bədxahlarımıza layiqli cavab oldu.

Dünyanın bütün qitələrində ünsiyyət vasitəsi kimi səslənən bu dil —Azərbaycan dili Azərbaycan xalqının milli mənliyi və ən qiymətli, əvəzolunmaz sərvətidir. Azərbaycan dilinin inkişafı, çiçəklənməsi, zənginləşməsi uzun və ziddiyyətli bir yol keçmişdir. Bu işdə xalqımızın soykökündə iştirak edən qəbilə, tayfa, xalq və neçə–neçə etnik qrup fəal rol oynamışdır.

Dilimizin inkişafı, qorunması, fəaliyyət dairəsinin genişlənməsi kimi tarixi missiyanın yerinə yetirilməsində ulu öndərin müstəsna rolunu hamı etiraf edir. XX əsrin II yarısında Azərbaycan dilinin hərtərəfli inkişafı, ümumişlək dilə, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın hegemon dövlətlərinin, ən yüksək beynəlxalq cəmiyyətlərin və təşkilatların kürsülərində səslənməsi bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev və Azərbaycan dili! Bu iki ad XX əsrin 60–cı illərindən həmişə qoşa çəkilmişdir. Çünki Heydər Əliyev Azərbaycanda səlahiyyət sahibi olduğu andan — 1969–cu ildən Azərbaycan dilinə təkcə adi ünsiyyət vasitəsi kimi baxmamış, onu həmçinin dövlət siyasətinə çevirmiş, bir an da olsa, diqqətdən yayındırmamışdır. Bunun isbatı üçün bir neçə il öncəyə qayıdaq. Tarixi bir faktı xatırlatmaq kifayətdir. Respublikamızda baş verən məlum dəyişiklikdən— Xalq cəbhəsi hakimiyyətə gəldikdən sonra Azərbaycan dilinə müxtəlif münasibətlər özünü büruzə verdi. Hətta Milli Məclis səviyyəsində "Azərbaycan dili" terminindən imtina etdilər. "Azərbaycan dili" "türk dili" adlandırıldı. Orta məktəb dərslikləri "Türk dili" adı ilə nəşr olundu. Bu, xalq arasında narazılıqla qarşılandı. Ona görə də ulu öndər hakimiyyətə gələn kimi işin, vəziyyətin çətin və gərgin olmasına baxmayaraq, bu məsələni bir neçə ay alimlərin, yazıçıların, ziyalıların, dövlət xadimlərinin, geniş mənada xalqın müzakirəsinə verdi.

Ulu öndər həmin müzakirələrin hamısında yaxından iştirak etdi və özünün münasibətini, müşahidələrini çox yığcam şəkildə belə ümumiləşdirdi:

1. "Ana dilinin adı müasir ictimai təfəkkür üçün tamamilə aydın olmalı, arxaik səciyyə daşımamalıdır.
2. Ölkənin, xalqın və dilin adında məntiqi bağlılıq olmalı, biri digərini təsdiq etməlidir.
3. Milli müstəqillik, milli mənlik qüruru zədələnməməlidir".

Heydər Əliyev yazıçılarla, mədəniyyət işçiləri ilə, gənclərlə görüşlərində həmişə "Azərbaycan dili, onun saflığı və qorunması"nı ayrıca bir tezis kimi irəli sürmüş və dil mütəxəssislərinə özünün nəzəri göstərişlərini vermişdir.

Ulu öndər bu sahədəki fəaliyyətini iki istiqamətdə qurmuşdur:

1. Azərbaycan dili ilə bağlı söylədiyi nəzəri mülahizə və göstərişlər;
2. Azərbaycan dilinin əməli olaraq tətbiqi ilə bağlı özünün nümunəvi nitqləri.

Heydər Əliyev Azərbaycan xalqının və onun dilinin mənşəyi, formalaşması, sabitləşməsi kimi məsələlərə çox ciddi yanaşır, bütün bunları elmi faktlarla əsaslandırırdı. Ümummilli liderimizin Azərbaycan dili ilə bağlı dilçilik görüşləri çoxcəhətlidir. Onun çıxışlarında yeri gəldikcə dil siyasəti, dil quruculuğu, dil mədəniyyəti, yazı və əlifba, üslublar və s. yaxşı, özü də yerli–yerində əsaslandırılırdı. O, Azərbaycan dilinə xalqımızın əvəzsiz

sərvəti, tarixi, mədəniyyəti, mədəni sərvəti kimi yanaşırdı. Bunu onun alimlərlə, yaradıcı ziyalılarla, diplomatlarla, tələbələrlə, xaricdə yaşayan həmvətənlərimizlə, təsərrüfat adamları ilə söhbətlərində duyuruq.

Heydər Əliyevin səyi nəticəsində Azərbaycan dilinin statusu Azərbaycan Konstitusiyasında təsbit olunmuşdur. Ümummilli liderimizin elə bir ciddi toplantı yox idi ki, o, orada dilimiz, milli mənliyimiz, milli sərvətimiz, tariximiz, mədəniyyətimiz və s. haqqında söz açmasın. Xüsusilə gənclərlə görüşlərdə bu məsələlər ön plana çəkilir, çox dərin və məzmunlu mətləblərdən söhbət açılır, vətəndaş qayğıkeşliyi ilə bu fikirlər təbliğ olunur, insanların beyninə həkk edilirdi.

Heydər Əliyevin Azərbaycan dilinin qorunması və inkişafı istiqamətində gördüyü ən böyük xidmət dilimizə dövlət dili statusu verilməsi istiqamətində gördüyü əməli işlərdir. Xüsusilə Azərbaycan dili və əlifbası, xalqımızın mənəvi dəyərləri ilə bağlı ümummilli liderimizin imzaladığı tarixi fərman və sərəncamlar bu istiqamətdə olduqca əhəmiyyətli işlərin görülməsinə imkan yaratmışdır.

18 iyun 2001–ci il! Bu gün Azərbaycan xalqının tarixində əlamətdar bir gün kimi qalacaqdır. Məhz bu tarixdə Heydər Əliyev "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" müstəsna dəyəri olan bir Fərman imzaladı. Ondan bir neçə gün sonra —4 iyul 2001–ci il tarixdə "Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının təşkilinin təsdiq edilməsi haqqında" sərəncama imza atdı. 9 avqust 2001–ci il tarixdə "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsdiq edilməsi haqqında" fərman verildi. Bütün bu fərman və sərəncamların verilməsi milli qeyrət, mənəvi saflıq, dövlətə, xalqa, onun dilinə sədaqət, nəhayət, bu sahədə dərin bilik tələb edirdi.

Heydər Əliyev fərmanın reallaşması istiqamətində ciddi işlər gördü. Hər şeydən əvvəl, aidiyyəti olan insanlara anlatdı ki, Azərbaycan dili, sadəcə olaraq bir ünsiyyət vasitəsi kimi başa düşülməməlidir. Hər bir azərbaycanlı anlamalıdır ki, ulu babalarımızın, aqillərimizin bizə yadigar qoyduqları bu dil tarixdir, mənəviyyatdır, Azərbaycan xalqının varlığı və Azərbaycan adlı müstəqil dövlətin əsas simvoludur. Azərbaycan dili Azərbaycan xalqının mənəviyyat bayrağıdır. Nə qədər ki, bu bayraq Azərbaycan adlı diyarda ucalır, deməli, Azərbaycan var, Azərbaycan xalqı yaşayır. Azərbaycan xalqı bu gün dünyanın əksər qitələrində yaşayır, onların sayı 50 milyonu aşır. Azərbaycan dili tarixən çox mürəkkəb bir regionda, müxtəlif sistemli dillər mühitində formalaşmış və inkişaf etmişdir.

Heydər Əliyevin Azərbaycan dilinin inkişafında xidmətlərindən danışarkən onun yazı mədəniyyətimiz, əlifba islahatı və türk dünyasının birləşdirilməsi sahəsində gördüyü tarixi xidmətlərini xüsusi qeyd etmək lazımdır. Ölkə prezidentinin 9 avqust 2001–ci il tarixdə imzaladığı "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmanı irəliyə atılmış yeni və tarixi bir addım idi. XIX–XX əsrlərdə dəfələrlə latın qrafikalı əlifbaya keçmək üçün səylər olsa da, real nəticə olmamışdır. Latın qrafikalı əlifbaya keçmək ideyası türk dünyasında xüsusi bir mərhələdir. Bu ideyanın yaranması, reallaşması, tətbiqi Azərbaycanla, onun görkəmli şəxsiyyətlərindən sayılan M.F.Axundov, H.B.Zərdabi, C.Məmmədquluzadə, S.M.Qənizadə, N.Nərimanov, Ü.Hacıbəyov, B.Çobanzadə, Ə.Hüseynzadə, S.Ağamalıoğlu və b. ilə bağlı olmuşdur. Milli ruhlu bu ziyalılar Azərbaycan xalqının tərəqqisi, maarifə, elmə yiyələnməsi yolunda latın qrafikalı əlifbanın tarixi rolunu dərk etmişlər. O dövrün reallığı bu ideyanın həyata keçməsinə həmişə mane olmuş, sədd çəkmişdir. 1926–cı ildə Bakı şəhərində keçirilən I Türkoloji qurultay türkdilli ölkələrdə latın qrafikalı əlifbaya keçməyi tövsiyə etdi. Qurultayın tövsiyəsini ilk reallaşdıran ölkə Azərbaycan oldu. Lakin 30–cu illərin repressiyası Azərbaycan xalqına çox böyük zərbələr vurdu. Bunlardan biri də latın qrafikalı əlifbanın ləğv edilməsi idi. Sovet strategiyasının şovinist siyasəti nəticəsində doğma əlifbamız kiril qrafikalı əlifba ilə dəyişdirildi. Üzərindən neçə onilliklər keçdi, tarix öz ədalətli hökmünü verdi —Sovet İttifaqı dağıldı, Azərbaycan müstəqil respublikaya çevrildi. Heydər Əliyev kimi dünya şöhrətli siyasətçi, qəlbində türkçülük, azərbaycançılıq məşəli yanan dahi bir lider Azərbaycan dövlətinə yenidən rəhbərlik etdi. Ulu öndər şəxsi nüfuzundan istifadə edərək Azərbaycan dilinin tətbiqi işinin təkmilləşdirilməsi və latın qrafikalı əlifbaya keçmək haqqında dəyərli, tarixi fərman imzaladı. Bu fərman Azərbaycan dilinin tətbiqi və latın qrafikalı əlifbanın geniş işlənməsi üçün dövlətin təminatı idi.

Heydər Əliyevin uzaqgörənliyi, məsələnin vaxtında həllinə qərar verməsi təkcə Azərbaycanda deyil, ümumiyyətlə, bütün türk dünyasında sevinclə qarşılandı. Ümummilli lider Türkiyədə "2001–ci ilin müdrik dövlət adamı" seçildi.

Heydər Əliyev "Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikası Qanunu"nun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədilə 02 yanvar 2003–cü il tarixdə imzaladığı fərmanla Azərbaycan Dövlət Dil Komissiyası, ziyalılarımız, mətbuatımız və dövlət strukturları konkret əməli işlər görmüşlər.

Ulu öndərimiz dini dəyərlərə, xalqın inanc yeri saydığı ocaqlara, pirlərə, məscidlərə, ziyarətgahlara çox həssas yanaşırdı. Xalqı bu ruhda tərbiyə edirdi. Bu tərbiyənin nəticəsidir ki, bütün ölkələr Azərbaycan xalqını

tolerant xalq, Azərbaycanı isə tolerant ölkə kimi tanıyır. Dünyanı məhvə aparan terrora, dini ayrı–seçkiliyə Azərbaycanda yer yoxdur.

Cənab İlham Əliyev bu il martın 19–da keçirilən Novruz şənliklərində söylədiyi nitqdə maraqlı bir məqama toxunmuş, Novruz bayramını xalqımızın ən qədim bayramı, çox vacib milli–mənəvi vərdişlərimiz kimi səciyyələndirmiş, ulu öndərimiz Heydər Əliyevin milli–mənəvi dəyərlərlə bağlı nəsihətlərinə sadiq qalmağın əhəmiyyətindən söz açmış, bu işdə həssas davranmağı tövsiyə etmişdir: "Novruz xalqımızın ən sevimli bayramıdır. Azərbaycan xalqı əsrlər boyu Novruz bayramını qeyd etmişdir. İctimai–siyasi quruluşdan asılı olmayaraq bütün dövrlərdə bu bayram hər bir Azərbaycan ailəsində qeyd edilirdi. Bu gün isə müstəqil Azərbaycanda bu bayram dövlət bayramı kimi qeyd edilir".

Azərbaycan xalqı milli–mənəvi dəyərlərinə həmişə sadiq olmuşdur. Bu dəyərlər bizi bir xalq kimi qoruyub saxlamışdır. Bu gün müstəqillik dövründə Azərbaycanda dövlət quruculuğu prosesi də məhz milli–mənəvi dəyərlər üzərində qurulmuşdur…

…Milli–mənəvi dəyərlər bizim üçün əsas məsələdir. Əlbəttə, elə etməliyik ki, bu dəyərlər gələcəkdə də Azərbaycanda daim üstünlük təşkil etsin. Gənclərimiz, uşaqlarımız, gənc nəsil bu dəyərlər üzərində tərbiyə alsınlar, milli ruhda böyüsünlər, daim Vətən haqqında düşünsünlər və Vətənin inkişafı üçün əllərindən gələni əsirgəməsinlər. Xüsusilə, indiki zamanda, qloballaşma dövründə bunun daha da əhəmiyyəti vardır. Çünki qloballaşmanın müsbət tərəfləri haqqında kifayət qədər geniş danışılır. Ancaq qloballaşmanın mənfi tərəfləri də vardır. Özümüzü bu mənfi təsirdən qorumaq və gələcəkdə, uzun illər bundan sonra da Azərbaycanı inkişaf yolu ilə irəliyə aparmaq üçün mütləq milli dəyərlər üstünlük təşkil etməlidir".

Bütün bunlar "Heydər Əliyev–Xalq! Xalq–Heydər Əliyev" kəlamının təsadüfi yaranmadığını sübut edir. Çünki o, dahidir! Dahilər isə əbədiyyətə qovuşur, mənsub olduqları xalqın, bəşəriyyətin mənəvi, dünyəvi günəşinə çevrilir, zamana, ölkəyə sığmırlar. Heydər Əliyev bəşər dünyasına məxsus olan bu cür dahilərdəndir.

İllər, əsrlər ötəcək, müstəqil Azərbaycan dövləti daha da inkişaf edəcək, iqtisadi və siyasi cəhətdən dünyada ən güclü, ən qüdrətli, çiçəklənən bir ölkəyə çevriləcək. Böyüməkdə olan nəsil ulu öndərimizi hər il yad edəcək, alimlər və yazarlar onun həyat Kitabına yeni–yeni səhifələr açacaq, onun fəaliyyətini işıqlandıracaq. Xalq müdrikdir —dağdan uzaqlaşdıqca, onun nə qədər möhtəşəm olduğu görünür. Ulu öndər tarixdə əbədi olaraq öz əməlləri ilə yaşayacaqdır. Bu gün ziyarətə çevrilən məqbərəsi, Azərbaycanı təbliğ edən Heydər Əliyev Fondu, Heydər Əliyev Mərkəzi, onun adını ucaldan obyektlərlə nəsillərin yaddaşında həkk olunacaqdır.

Dünyada hər şey dəyişir. Qalan saf əməllərdir. Ulu öndər nəsillərin qəlbində öz əməlləri, ölməz ideyaları ilə yaşayacaqdır. Azərbaycan dövlətini yaşatmaq, əbədiləşdirmək üçün Heydər Əliyev ideyalarına sadiq qalmaq və bu ideyaları dəstəkləmək çox vacibdir.

**"Respublika".-**2013.-23 aprel.-N 85.-S.5.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV – AZƏRBAYCAN ELMİNİN HAMİSİ

**Akif ƏLİZADƏ,**
Azərbaycan Milli Elmlər Akademiyasının Prezidenti

**Dünya mədəniyyətinin və elminin yaradıcılarından biri kimi tanınan, Azərbaycan xalqının canında–qanında olan humanizm və insansevərlik ideyalarının böyük carçılarından biri—XIV əsrin böyük Azərbaycan şairi və filosofu Seyid İmadəddin Nəsiminin məşhur bir kəlamı var: "Məndə sığar iki cahan, mən bu cahana sığmazam!". Doğrudan da, bu dünyaya ülvi bir missiya—öz xalqına və bəşəriyyətə xidmət üçün gələnlər nəinki məkana, heç zamana da sığmırlar, onların əməlləri və yaradıcılığı qarşısında zaman və məkan çərçivələri əriyib yoxa çıxır.**

Xalqımızın XX əsrdə yetirdiyi zamana və məkana sığmayan dahi şəxsiyyətlərdən biri də ulu öndər, ümummilli lider kimi şərəfli adları ləyaqətlə daşıyan Heydər Əliyevdir. Heydər Əliyev öz şəxsiyyəti və qüdrətli fəaliyyəti ilə sanki zamanları birləşdirən bir düha təsiri bağışlayır. Bu cür şəxsiyyətlərdə sanki etnosun yüz illər boyunca öz ulu məqsədləri üçün tədarük etdiyi bioloji enerji akumulə olunur və ən maraqlısı da budur ki, elə həmin şəxsiyyət vasitəsilə də həmin enerji gələcək nəsillərə ötürülür. Etnosun bu cür şəxsiyyətlər ətrafında sıx birləşməsinin səbəbi də elə həmin superenerjinin yaratdığı maqnit cazibə sahəsidir. Əlbəttə, bütün bu hadisələrin və fenomenlərin bir elmi izahı var və bu izahın gerçəkləşməsi üçün elm adamlarının, alimlərin səyi və istəyi vacibdir. Heydər Əliyev kimi fenomenal bir şəxsiyyətin müxtəlif yönlərdən elmi səviyyədə nəzərdən keçirilməsi—onun bir örnək, bir ideal kimi gələcək nəsillərə ötürülməsi üçün çox böyük əhəmiyyət daşıyır. Məhz buna görə Azərbaycan alimləri, xüsusi halda Azərbaycan Milli Elmlər Akademiyasının alimləri Heydər Əliyev fenomeninin öyrənilməsinə həmişə maraq göstərmiş və bu elmi məqsədin yerinə yetirilməsini Akademiyanın şərəfli vəzifələrindən biri saymışdır. Elə bu məqsədlə hələ keçən əsrin 90–cı illərində—Heydər Əliyev ikinci dəfə, bu dəfə müstəqil Azərbaycanın rəhbərliyinə qayıdanda "Heydər Əliyev və Azərbaycan elmi" mövzusu bütün aktuallığı ilə alimlərimizin qarşısında durdu və bu mövzuya xüsusi monoqrafik tədqiqat əsəri həsr edildi.

Ulu öndərin 75 illik yubileyinə həsr edilmiş eyniadlı monoqrafiyanın müəllifi, ömrü boyu ürəyində Heydər Əliyev sevgisi daşıyan Azərbaycan Milli Elmlər Akademiyasının sabiq prezidenti, mərhum akademik Fəraməz Maqsudovun qələmindən çıxmış həmin əsərin "Taleyin bəxş etdiyi nadir şəxsiyyət" adlı giriş bölməsində deyilirdi:

"Böyük siyasətçilər, müdrik diplomatlar öz fəaliyyətlərinin hərəkətverici qüvvəsi kimi maye enerjidən, qaz enerjisindən deyil, intellektual enerjidən—beyin enerjisindən istifadə edirlər. Heydər Əliyev də… intellektinin gücü ilə zorakı fiziki qüvvəni məğlub etdi, insan zəkasının və müdrikliyinin ən qorxulu silahlarını belə susdurmağa, ən vəhşi ehtirasları söndürməyə, qana susamışları sakitləşdirməyə qadir olduğunu sübut etdi".

Doğrudan da, belə baxanda Heydər Əliyev öz ampluasının ən böyük alimidir və başqalarından onu fərqləndirən istedadı da elmi bilikləri ilə tandemdə bu dahini əlçatmaz edir. Dərindən bələd olduğu və sevdiyi klassik Azərbaycan poeziyasında, dahi şair–mütəfəkkir Nizami Gəncəvi yaradıcılığında da hələ 850 il öncə bu fikir irəli sürülürdü:

Qüvvət elmdədir,
başqa cür heç kəs
Heç kəsə üstünlük
eyləyə bilməz!

H eydər Əliyevin müəllimləri, onu yetişdirən xalq, mədəni–mənəvi irs işığa, xeyirxahlığa, insansevərliyə, ictimai tərəqqiyə yönəlik bir qaynaq idi və bu səbəbdəndir ki, ulu öndərin elmi də yaxşılığa, işığa, xeyirxahlığa xidmət göstərirdi. Başqa cür ola da bilməzdi. Heydər Əliyev elə bir ölkənin, elə bir xalqın yetirməsi idi ki, humanizm, insansevərlik, xeyirxahlıq yönündə minillik ənənələri var idi və ümummilli lider də ləyaqətli bir oğul kimi təkcə bu ənənələri qəbul etməklə kifayətlənməmişdi, həm də onları qoruyub zənginləşdirmək yolunda qeyrət kəmərini belinə möhkəm bağlamışdı.

Heydər Əliyev böyük siyasətə gəldiyi ilk gündən onun qəbul etdiyi və ömrünün sonuna qədər sədaqətli qaldığı bir iş üsulu oldu: rasional təfəkkürün, dəmir məntiqin qanunlarına söykənən elmi idarəetmə üsulu. Təbii ki, bu üsulun əsasını elm, bilik təşkil edirdi. Ancaq doğma xalqına məhəbbətsiz, vətəninə bağlılıqsız bu elmin və biliyin nə qədər effektiv olacağını demək çətindir. Buna görə də, heç şübhə yoxdur ki, Heydər Əliyevin elmi idarəçilik sisteminin əsasını məhz onun Vətənə və millətə sevgisi təşkil edir. Bu yöndə də Heydər Əliyev Azərbaycan humanist fikrinin layiqli davamçısıdır. Belə ki, lap qədim dövrlərdən başlamış son zamanlara qədər

Azərbaycan ictimai–bədii fikrində maarifçi hökmdar ideyası aktual olmuş və istər klassik şairlərimiz, istərsə də filosoflarımız, ruhani alimlərimiz tərəfindən həvəslə təbliğ olunmuşdur. Heydər Əliyev məhz belə bir elmi irsin yetirməsi kimi uzun əsrlər boyu yalnız utopiya kimi qəbul edilmiş ideyaların gerçəkləşdirilməsində müstəsna rol oynamışdır desək, əlbəttə, yanılmarıq. Böyük Nizami "Sirlər xəzinəsi" poemasında türk dövlətçiliyinin ədalət prinsiplərini tərənnüm edərkən məhz Heydər Əliyev kimi türk dövlət başçılarının idarə üsulunu bütün dünyaya örnək göstərmişdi.

1993–cü il iyun ayında Heydər Əliyev hakimiyyətə yenidən gəldikdən sonra xalqın bu ağır və çətin vaxtında, ilk növbədə "atəşkəs rejimini" təmin etdi və ölkədə sabitlik yaratdı. Azərbaycan demək olar ki, ağır böhran içərisində idi. Bu zaman o, heç kəsin təsəvvür edə bilmədiyi və heç kəsin ağlına gəlməyən taleyüklü bir məsələni qarşıya qoydu. Heydər Əliyev çox düzgün olaraq fikirləşdi ki, Azərbaycan torpağının altında zəngin neft və digər qiymətli sərvətlər yatdığı halda, bu torpağın üstə xalq aclıq və səfalət içindədir. Ona görə də o, milli neft strategiyasını işləyib hazırladı. Bu strategiya çərçivəsində qlobal layihələr irəli sürdü. 1994–cü il sentyabr ayının 20–də "Əsrin müqaviləsi" layihəsi çərçivəsində dünyanın bir çox iri neft şirkətləri ilə birgə müqavilələr bağlandı, ölkəyə sərmayə axını başladı və xalqımızın iqtisadi vəziyyəti xeyli yaxşılaşmağa başladı. Respublikada baş alıb gedən hərc–mərcliyə, aclığa, özbaşınalığa son qoyuldu, qayda–qanun və nizam–intizam bərpa olundu. Azərbaycanı tədricən dünya ölkələri tanımağa başladılar. Məhz ulu öndərimizin uzaqgörənliyi nəticəsində xalqımız iqtisadi və sosial çətinliklərdən xilas oldu. Neft və qaz sərvətlərindən gələn gəlir hesabına digər sahələr də inkişaf etməyə başladı. Heydər Əliyevin xalqımızın dilinin, mədəniyyətinin və incəsənətinin inkişafında da misilsiz xidmətləri vardır.

Qırx beş il öncə Azərbaycanda hakimiyyətə gəlmiş Heydər Əliyev özünün humanist elmi ideyalarına söykənərək ölkəmizi qısa müddətdə cəhalət və ətalət girdabından çıxararaq elmin, qeyrətin, zəhmətin, son nəticədə isə milli səadətin işığına doğru apardı. Təsadüfi deyil ki, o zamanlar təkcə keçmiş Sovetlər Birliyində deyil, bütün dünyada sosioloq alimlər ictimai–iqtisadi inkişafın Azərbaycan fenomenindən danışmağa başladılar. Əslində buna "Heydər Əliyev fenomeni" deyilsəydi, daha doğru olardı.

Y axşı bilirik ki, kainatın yaranması barədə müxtəlif nəzəriyyələr var. Bunlardan biri—antik filosoflar tərəfindən irəli sürülən "ilkin təkan", digəri—çağdaş dövrdə alimlər arasında daha geniş yayılmış "böyük partlayış" nəzəriyyəsidir. Əgər keçən əsrin 70–ci illərinin əvvəllərindəki Azərbaycanı kiçik bir kainata bənzətsək, onun tərəqqisi üçün ilkin təkan da, böyük partlayış da, bütün bunlar məhz Heydər Əliyevin siyasət və idarəçilik elminin bəhrələridir. Qeyd etdiyimiz kiçik kainat, bu böyük şəxsiyyətdən aldığı enerji ilə bu gün də "genişlənməkdə" davam edir. Çünki o qüvvəni davam etdirən, sönməyə qoymayan, getdikcə gücləndirən varis var: Heydər Əliyevin elmi idarəçilik üsulunun istedadlı və bacarıqlı varisi—cənab İlham Əliyev. Deməli, ulu öndərin elmi məktəbinin ideyaları yaşayır, xalqımızın rifahına, dövlətçiliyimizin möhkəmlənməsinə, dünya birliyində layiqli yerini tutmasına, ali beynəlxalq kürsülərdən səsimizin daha ucadan eşidilməsinə xidmət edir.

Heydər Əliyev bütün elmi idarəçilik fəaliyyəti boyu Azərbaycan elminin flaqmanı olan Elmlər Akademiyasına böyük önəm vermiş, onun inkişafı üçün əlindən gələni əsirgəməmişdir. Keçid dövrünün xaosunda hakimiyyət başına gəlmiş səriştəsiz insanların cəhaləti ilə yox olmaq təhlükəsi qarşısında qalarkən, Akademiyanı əfsanəvi Simurq quşu kimi öz məhrəm qanadları altına alan məhz Heydər Əliyev oldu. Bu böyük insanın qayğısı və diqqəti sayəsində alimin əvvəlki ad–sanı, şöhrəti, nüfuzu bərpa olundu. Dahi Nizaminin alim haqqında öz qəhrəmanı İskəndərin dili ilə dediyi ölməz sözləri gerçəkləşdi:

Rütbələr içində seçilir biri—
Hamıdan ucadır alimin yeri!

Ulu öndər Heydər Əliyev 15 may 2001–ci il tarixli fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına Azərbaycan Milli Elmlər Akademiyası adını verməklə Azərbaycan Milli Elmlər Akademiyasının statusu haqqında 4 yanvar 2003–cü il tarixli fərmanı ilə Akademiyanın statusunu yüksəltmiş, onun qarşısında mühüm vəzifələr qoymuş, bununla da alimlərimizin xalq və dövlət qarşısında məsuliyyətini daha da artırmışdır.

Bu gün milli status almış Elmlər Akademiyasının alimləri də Heydər Əliyevin bu tarixi xidmətlərini unutmur, qədirbilənlik nümayiş etdirərək onun xatirəsini əziz tuturlar. Əlbəttə, belə bir həqiqəti bir daha dilə gətirmək artıq deyil ki, Akademiya alimlərinin hər bir uğuru Heydər Əliyevin müqəddəs ruhunu şad edir, onun xidmətlərinin təhqiqatçısına və təbliğatçısına çevrilir. Xüsusən indiki informasiya və bilik əsrində alimlərimiz Heydər Əliyevin elmi məktəbinin uzaqgörən perspektiv məqsədlərinin reallaşması üçün daha genişmiqyaslı çabalar göstərir, ulu öndərin ən ülvi arzusu, amalı olan doğma Vətənin tərəqqisi, daha da abadlaşması və çiçəklənməsi naminə öz bilik və bacarıqlarını sərf etməkdən usanmırlar.

Ü mummilli liderin şanlı 90 illik yubileyinə Azərbaycanın aparıcı alimləri də əliboş gəlməmişlər. Heydər Əliyev sevgisinin, Heydər Əliyev ehtiramının bir təzahürü Akademiya üzvlərinin məqalə və xatirələrindən ibarət bir toplu tərtib edilmişdir. Əlbəttə, bu ucsuz–bucaqsız mövzunu bir monoqrafiyada, bir məqalələr

toplusunda əhatə etmək, onu bütün yönləri ilə aydın–aşkar təqdim etmək ağlasığan iş deyil. Ancaq necə deyərlər, varını verən utanmaz və adıkeçən toplu da ümumxalq bayramına, xalqımızın bütün nümayəndələri tərəfindən böyük sevgi və sayqı ilə qutlanan Heydər Əliyevin yubileyinə Azərbaycan Milli Elmlər Akademiyasının təvazökar bir ərməğanı kimi qəbul edilsin gərək.

K itabdakı məqalələrdə istər Heydər Əliyevin akademik elmimizin inkişafı qarşısında xidmətləri, istərsə də onun haqqındakı ürək sözləri bu dahinin elmi dairələrdəki obrazı barədə səmimi təsəvvür yaratmağa xidmət edir. Toplunun tərtibi zamanı, təbii ki, ümummilli liderin daha çox Azərbaycan Milli Elmlər Akademiyası ilə çoxsaylı qırılmaz bağlarına, qarşılıqlı münasibətlərinə diqqət ayrılmışdır və yubiley nəşrinin janrına uyğun olaraq mümkün qədər akademizmdən qaçmağa, ulu öndərin milli elmimiz qarşısındakı xidmətlərinə ilıq, məhrəm münasibətin səmimi bir dillə qiymətləndirilməsinə önəm verilmişdir.

O ki qaldı Heydər Əliyevin elmi irsinin alimlərimiz tərəfindən sistemli monoqrafik araşdırmalarına, şübhəsiz ki, bu iş alimlərimizin müxtəlif nəsilləri tərəfindən davamlı olaraq aparılacaq və nəsillərə örnək olan bu dahi şəxsiyyətin fəaliyyəti hələ bir çox böyük siyasət və diplomatiya xadimlərinin yetişməsində öz rolunu oynayacaqdır.

Dünya elmşünaslığında gələcəkdə, yəqin ki, Heydər Əliyevin elmi idarəetmə sisteminin öyrənilməsinə neçə–neçə sanballı elmi əsərlər həsr ediləcək. Bu, dünya elminə lazımdır, dünya elminin zənginləşməsinə lazımdır. Sağlam məntiqi təfəkkür bunu tələb edir.

Heydər Əliyevin elmi irsi, onun elmə, elm adamlarına göstərdiyi sonsuz qayğı və məhəbbət bu gün bizə niyə bu qədər əziz və önəmlidir? Ona görə ki, Heydər Əliyevin idarəçilik elmi insansevərlik və şəxsiyyət azadlığı, qarşılıqlı hörmət prinsipləri üzərində qərar tutmuşdur. Hürriyyət, azadlıq. Heydər Əliyev dühasının Azərbaycana, Azərbaycan xalqına bəxş etdiyi ən böyük nemət məhz budur. Bu, ümummilli liderin vətənpərvərlik, xalqsevərlik elminin şirin bəhrələridir.

Ulu öndərə həsr edilmiş səmimi ürək sözlərimizdən ibarət olan yazımız başa çatır. Ancaq təbii ki, sözlərimiz bitmədi—bu dahi şəxsiyyətə məhəbbətimiz kimi. Nə yaxşı ki ürək sözlərimizi heydərsevərlərlə bir daha bölüşdük, onun ruhuna və əməllərinə, yaşayan ənənələrinə sevgi izharında bulunduq. Bu gün bizi qələbələrdən–qələbələrə aparan ölməz fəaliyyətinə bir daha nəzər saldıq. Əslində isə bəlkə də əbədi işığı ilə onun özü bizim qəlbimizi nurlandırdı, dilimizi açdı, nitqimizə rəvac verdi.

Bir filosof demişdi ki, biz həqiqətlərə sonsuz dərəcədə yaxınlaşa bilərik, ancaq onlara çata bilmərik. Heydər Əliyev və Azərbaycan elmi də elə bir həqiqətdir ki, biz ona yalnız mümkün qədər yaxınlaşmaq yolunda növbəti addımı atdıq.

**“Respublika”.-**2013.-24 aprel.-N 85.-S.4.

# HEYDƏR ƏLİYEV: AZƏRBAYCANDA MÜASİR HÜQUQİ DÖVLƏTİN BANİSİ

**Əi Hüseynli,**
Milli Məclisin komitə sədri

**Mənsub olduqları xalqın taleyində və taleyüklü məsələlərin həllində müstəsna xidmətləri olan tarixi şəxsiyyətlər, görkəmli siyasət və dövlət adamları gerçəkdən çox deyildir.**

**Onları zamanın, qərinənin hər fürsətində görmək şansımız da yoxdur. Amma elə ki, bir millətin bəxtinə tale belələrini bəxş etdi, bu cür şəxsiyyətləri yetirdi, bu o deməkdir, həmin millətin taleyinə Tanrı bexşeyiş yazıb, o millət bundan belə ən az yüz illər boyu yaşamaq, var olmaq şansı qazanıb.**

Heydər Əliyev də Azərbaycanın taleyinə yazılan, eyni zamanda o qürurlu taleyin zirvəsini müəyyən edən, ən nəhayət millətinin xilaskarı olmaq üçün Tanrı və zaman tərəfindən göndərilən bəxşeyişlərdən idi...

Bu dahi insanın Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi qalması heç şübhəsiz ki, təsadüfi deyildir. Xalqının taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərən ikinci dövlət adamı tapmaq gerçəkdən mümkünsüzdür. Və ya elə bu səbəbdəndir ki, Heydər Əliyevi tanıdığımız gündən ona ən böyük Azərbaycanlı demişik. Çünki bir tək mənsub olduğumuz dövləti qorumağı deyil, həm də onu sevməyi, dərk etməyi bizə öyrədən insanın adıdır - Heydər Əliyev!

Heydər Əliyev dünyanın nadir, unikal, seçilən siyasət adamı olub. O, dünya siyasətinə təsir etmək gücündə olan lider idi. Liderlər var ki, siyasi fəaliyyət, dövlət idarəetməsi sahəsində uzun illər çalışıb püxtələşdikdən sonra tanınırlar. Və ya, elə adamlar da var ki, bu, onlarda fitrən mövcuddur, genlərində kodlaşdırılıb, bir sözlə, ilahi vergidir. Buna Allahdan lider deyirlər. Heydər Əliyev bax həmin o ikincilərdən idi...

Heydər Əliyev eyni zamanda tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran, dövlət idarəçiliyi və siyasi təlimlər elminin müntəxəbatını öz fəaliyyəti ilə diktə edən nadir şəxsiyyətlərdən biri idi. O təkcə güclü təsərrüfatçı deyil, həm də sözlərinin çəkisi və sanbalı olan, kütləni arxasınca aparmağı, auditoriyanı inandırmağı bacaran bir siyasi xadim idi.

Ən nəhayət, Heydər Əliyev mahir psixoloq, insan qəlbinin dərin bilicisi idi. Buna görə də onun gələcəyi görmək qabiliyyəti başqalarına, həmkarlarına nisbətən daha güclü idi.

Tarixi bəsirəti, irəlini görmək nadir bir hissdir. Siyasi xadimlərin heç də hamısında bu hiss olmur. Təbiət bu keyfiyyəti yalnız seçilmiş adamlara - zəmanəsini çox-çox qabaqlayan görkəmli mütəfəkkirlərə verir. Eynən Heydər Əliyevə verdiyi kimi!

O, analitik düşüncə tərzi ilə, çətin vəziyyətlərdə soyuqqanlılığını saxlamaq məharəti ilə, yüksək intellekti, dünya mədəniyyətinə bələdliyi ilə ətrafdakıları heyrətləndirirdi. O sözün əsl mənasında möhtəşəm idi.Heydər Əliyev bəlkə də dünyanın çox nadir siyasətçilərindəndir ki, siyasətin ən qızğın meydanlarında hissləri ilə deyil, məntiqi ilə davranmağı bacarıb, əsl peşəkarlıq göstərib. Elə sərgilədiyi bu fəaliyyət, atdığı bu addımlardır ki, onu siyasi zirvəyə doğru aparıb...

Ulu öndəri xarizmatik lider, fenomenal şəxsiyyət adlandırırlar. Müasir siyasi texnologiyalarda lider üçün xarizma məsələsi çox vacib şərt hesab edilir. Heydər Əliyev məhz güclü xarizmatik şəxsiyyət, fenomenal siyasətçi və dövlət xadimi idi. Onun ən böyük gücü dərin, həm də universal biliyində, qətiyyətində, işgüzarlığında, hökmündə, qeyri-adi yaddaşında, tükənməz səbrində, müsahibini təmkinlə dinləmək bacarığında, uzaqgörənliyində, qarşısına qoyduğu məsələni həyata keçirmək qabiliyyətində, müdrikliyində, ən böyük siyasətçi keyfiyyətlərində, mahir diplomat olmasında, həmsöhbətinə təsir etmək gücünə malik olmasında idi. Xeyirxahlıq və alicənablıq, inam və etibar, təmkin və səmimiyyət, zəka, səbat, diqqət və başqa cəhətlər Heydər Əliyevin fərdi naturasının özgün çalarları idi.

Heydər Əliyev böyük siyasət üçün yaranan, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin həllində qətiyyətli sözünü deyə bilən nadir siyasətçi idi. Onun bu sahədəki fitri istedadı və fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişatını öncə görmək məharəti siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü büruzə vermişdi..

Bu dahi siyasətçi zərgər dəqiqliyi ilə, ölçülüb-biçilmiş qərarlar qəbul edirdi. Hətta fəaliyyəti haqsız yerə "təftiş" ediləndə belə düşmənləri ona irad tutmaq üçün "nöqsan deyə" bir fakt tapıb ortaya çıxara, ərsəyə gətirə bilməmişlər.

...Yarım əsrlik siyasi fəaliyyətin qızıl qaydası çoxları üçün təəccüblü idi.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə uzaqgörən daxili və xarici siyasəti ilə ölkənin nüfuzunu artırmış, hərtərəfli inkişafına nail olmuş, müstəqilliyini əbədi və dönməz etmişdir. Elə bu səbəbdən idi ki, hələ

dünya çapında yetərincə tanınmayan kiçik bir ölkə anidən Heydər Əliyevin uğurlu siyasəti sayəsində dünyada tanınan nüfuzlu bir dövlətə çevrilə bildi. Həm də bu qədər qısa müddətə! 1993-cü ildə müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev siyasət aləmində çox güclü, səriştəli və təcrübəli müdrik dövlət xadimi kimi az bir müddət ərzində xarici siyasət sahəsində böyük dönüş yaratdı. Dünyanın aparıcı dövlətləri, inkişaf etmiş ölkələri, beynəlxalq təşkilatlar Azərbaycana ciddi diqqət yetirməyə başladılar. O, Qərbə inteqrasiya yolunu tutdu. Ən çətin anlarda belə yenilməz siyasi iradə nümayiş etdirdi, milli dövlətçiliyin, milli mənafelərin ifadəçisi kimi antiazərbaycan, antimilli qüvvələrin qarşısında sipərə çevrildi, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişi məhz bu böyük insanın qətiyyətli mövqeyinin, uzaqgörənliyinin nəticəsi kimi reallığa vardı.

Heydər Əliyev idarəetmənin ustadı, siyasətin kamil bilicisi kimi bütün dünyada məşhur idi. Bu dahi insanın təliminə görə siyasət və uzaqgörənlik qarşılıqlı vəhdətdədir. Ulu öndər deyirdi ki, "reallığı düzgün qiymətləndirən, keçmiş təcrübədən yaradıcılıqla istifadə edən, sosial-siyasi və iqtisadi problemlərin bütün spektrini, mürəkkəbliyini nəzərə alan, qəbul olunan qərarların mümkün nəticəsini irəlicədən görməyə imkan verən siyasi xətt hökmən uğur qazanmalıdır" Belə siyasət cəmiyyətin sabitliyinə, irəliyə doğru hərəkətinə və tərəqqisinə xidmət edir.

Heydər Əliyev uzaqgörən və ağıllı siyasətçi kimi nəyi nə zaman deməyi, hansı addımı nə vaxt atmağı zərgər dəqiqliyi ilə bacarırdı. Ulu öndərin daha bir möhtəşəm fikrinə diqqət çəkmək istəyirəm: "Biz nazik sapın üstü ilə gedirik. Odur ki, biz gərək bu siyasəti o qədər ağılla, o qədər məharətlə aparaq ki, Azərbaycanın milli mənafeləri müdafiə olunsun."

Heydər Əliyevin siyasəti tamamən milli maraqlar üzərində qurulmuşdu. O, hər hansı problemə həsr olunmuş yığıncaqda məsələyə dərindən bələdliyi, verdiyi suallar, qaldırdığı problem məsələlərlə həmin sahənin mütəxəssislərini belə heyrətləndirirdi. Çünki o, istər sənaye, istər kənd təsərrüfatı, istərsə də elm, maarif, mədəniyyət ilə bağlı məsələlərin müzakirəsində bütün iştirakçıları həmin sahənin əvəzedilməz bilicisi kimi idarə edirdi. Onun kimi təsərrüfatı təsərrüfatçıdan, tariximizi tarixçidən, incəsənətimizi sənətşünasdan, iqtisadiyyatı iqtisadçıdan yaxşı bilən, onun problemlərini həll etməyə istiqamətləndirən ikinci adam tapmaq gerçəkdən mümkün deyil.

Heydər Əliyevin mülahizələri problemlərə dərindən bələdlik, hadisələrin məğzinə, səbəb-nəticə əlaqələrinə nüfuz etmək xüsusiyyəti ilə seçilirdi. Azərbaycanın daxili siyasətini istiqamətləndirən, xarici siyasətini beynəlxalq hüquq normalarına uyğun, məqsədyönlü və tarazlaşdırılmış şəkildə aparan qətiyyətli dövlət xadimi çox hallarda ən tanınmış siyasətçiləri belə təəccübləndirirdi. və onun ağıllı siyasətini birmənalı olaraq qəbul edirdilər. Hətta zaman-zaman diqqət yetirmisinizsə, ondan həm çəkinirdilər, ehtiyat edikləri zaman da az olmayıb.

Heydər Əliyev həm də qlobal düşüncəli, geniş dünyagörüşlü nəhəng bir siyasətçi idi. O, realist bir insan olaraq hadisələrə praqmatik yanaşırdı, tarixi şəraitdən düzgün baş çıxarırdı, ölkənin taleyi üçün uğurlu qərarlar qəbul edirdi. Onun ağıllı və uzaqgörən siyasətində hər şeyin öz yeri və vaxtı var idi. Proseslərin düzgün zamanlanması Heydər Əliyevi bir siyasətçi kimi yüksəldən və önə çıxaran ən böyük keyfiyyətlərdən olub - bunu da unutmamaq gərək! O, beynəlxalq aləmdə tarazlaşdırılmış siyasətin, ölçülüb-biçilmiş fəaliyyətin ustadı idi. Bu dahi siyasət adamı bütün fəaliyyəti boyu müdrik insan, qətiyyətli rəhbər, xalq məhəbbətini qazanan uzaqgörən siyasətçi və ağıllı dövlət xadimi olduğunu təsdiq etmişdir. İnanmaq çətindir ki, dünyada xalqa bu qədər yaxın ikinci bir siyasətçi olar. Siyasətçi üçün lazım olan keyfiyyətlərlə yanaşı, onda idarəetmə keyfiyyətləri, dövlətçilik təcrübəsi ən yüksək səviyyədə idi. Elə bunlar idi onun siyasətinin ucalığı, aliliyi, uzaqgörənliyi və heyrətamizliyi...

Heydər Əliyev siyasəti bütün dünyanı ehtiva edə bilir, düzgün istiqamətə yönəldirdi. Heydər Əliyevin beynəlxalq Atatürk sülh mükafatına layiq görülməsi onun dünyada apardığı sülh siyasətinə verilən qiymət idi. O, dünyanın bütün ölkələri və onların rəhbərləri ilə, hətta məkrli düşmənlərimizlə də "sülh dili" ilə nəinki danışmağı bacarırdı, onlara da bunu aşılaya bilirdi. Ulu öndərimizin ən ali insani keyfiyyətləri, fenomen xarakteri, insanlarla dil tapmaq bacarığı, hərəni öz dilində danışdırmaq məharəti onu tanıyanların sevimlisinə çevirirdi. Hər dövlət xadiminə xas olmayan üstünlüklər ulu Tanrının Heydər Əliyevə verdiyi ən ali keyfiyyətlər idi. Görəsən, bəşəriyyət belə nəcib, yüksək intellekti ilə seçilən dövlət xadimləri, siyasət nəhəngləri ilə çoxmu qarşılaşıb?! Təəssüf ki, buna heç də çox rast gəlinməyib. Və bu arada haşiyə çıxaraq qeyd etməmiz yerinə düşər ki, Azərbaycanın müstəqil olduğu dönəmin ilk illərində məhz naşı liderlərin fəaliyyətinin nəticəsi idi ki, ölkə ardıcıl məğlubiyyətlərə sürükləndi, torpaqlarımız işğal altına düşdü. Bütün bu məğlubiyyətlərin, uğursuzluqların baş verməsinə rəvac verən səbəbləri aradan qaldırmaq məhkumiyyəti isə yenə də Heydər Əliyevin üzərinə düşdü. Belə olan halda isə yalnız Heydər Əliyev böyüklüyünün əlində olacaq bir cəsarət idi ki, həmin məşəqqətdən Azərbaycanı xilas etsin....Və Böyük Öndər bunu bacardı! Həm də şərəflə bacardı!.

Heydər Əliyevin dərin məntiqli nitqi, natiqlik məharəti, söz seçmək bacarığı, auditoriya ilə ünsiyyət qurmaq səriştəsi onu dinləyənləri məftun edirdi. Onun nitqi dərin və konkret idi, müzakirə olunan məsələni yüksək səviyyədə ümumiləşdirmək bacarığına malik idi. Ulu öndərin çıxışlarında artıq söz və ifadə, qeyri-dəqiq fakt və rəqəm olmur, fikirlərini son dərəcə cilalanmış şəkildə ifadə edirdi. O, məsələnin mahiyyətini açmağa, mövzunun milli mənafe, dövlətçilik mövqeyindən təhlil etməyə xidmət edən məsələni ustalıqla göstərməyi bacarırdı.

Görkəmli siyasətçi üçün uzaqgörənlik, düzgün qərar çıxartmaq nə qədər əhəmiyyətlidirsə, rəvan nitqə, yüksək intellektə, təhlil etmək bacarığına yiyələnmək də bir o qədər vacibdir. Bu cəhətdən Heydər Əliyevə uyğun gələn siyasətçi çox azdır. Hətta mən deyərdim ki yoxdur! Ümummilli liderin ictimai-siyasi fəaliyyətinin obyektiv təhlili göstərir ki, o, başqalarından fərqli olaraq qeyri-adi zəkaya, böyük enerjiyə, islahatçı təfəkkürə, yüksək analitik təfəkkürə və yenilməz iradəyə malik siyasətçi olub "Siyasət üçün doğulmuşlar siyasətdən əl çəkdikcə, siyasət onlardan əl çəkmir" - deyimi tamamilə Heydər Əliyevə aid edilə bilər. Bəlkə də buna görədir ki, bir sıra hallarda Heydər Əliyevi "siyasət nəhəngi", "siyasət qrosmeysteri", "siyasət patriarxı"... kimi xarakterizə edirlər. Qüdrətli dövlət xadimi siyasət aləminin müəllimi idi. Onun müəllimliyindən çoxlarına pay düşmüşdür...

Hər bir xalqın müstəqil dövlət quruculuğu yolu bir sıra mühüm daxili və xarici amillərlə şərtlənir. Azərbaycan xalqı əlverişli tarixi şəraitdən, özünün siyasi, iqtisadi, mədəni və intellektual potensialından istifadə edərək, XX əsrin sonunda öz istiqlal arzusunu gerçəkləşdirə bilib! Və onun müəllifi də Heydər Əliyevdir!

Müstəqillik dövrünün qısa tarixi ümummilli lider Heydər Əliyevin bu fikrini bir daha təsdiq edir ki, "müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir". Azərbaycanın müstəqil dövlətçilik tarixinin təhlili də göstərir ki, dövlət qurmaq kimi çətin, mürəkkəb və şərəfli missiyanı iradəli, geniş və qlobal dünyagörüşlü, xalqın dəstəyinə malik və onun milli liderinə çevrilmiş şəxs yerinə yetirə bilərdi. XX əsrin 90-cı illərinin sonunda Azərbaycanda bu işlərin öhdəsindən gəlmək iqtidarında olan yeganə lider isə məhz Heydər Əliyev idi...

Eyni zamanda Heydər Əliyevin əməli və nəzəri fəaliyyətinin mühüm bir hissəsini onun milli dövlətçilik təlimi, milli mənəvi və ideya-siyasi dünyagörüşü təşkil edir. Onun bu sahə üzrə toplanmış zəngin irsinin tədqiqi təkcə bugünkü ictimai-siyasi dairələr üçün deyil, həm də gələcək nəsillər, Azərbaycana rəhbərlik edəcək bütün liderlər üçün örnəkdir. Uzun illər öz dövlətçiliyindən və milli mənəvi köklərindən ayrı salınmış, milli və dövlətçilik maraqları tapdanmış Azərbaycan xalqının özünəqayıdış və özünütəsdiqində Heydər Əliyevin əməli fəaliyyəti və ideya-siyasi baxışlarının çox böyük rolu olmuşdur...

Heydər Əliyevin dövlətçilik təlimində güclü dövlət anlayışı və bütün atributları ilə birgə dövlətin iqtisadi, siyasi, sosial və mənəvi əsasları öz əksini tapmışdır. Heydər Əliyev nəinki müstəqil Azərbaycan dövlətinin yaradılması konsepsiyasını həyata keçirdi, eyni zamanda Azərbaycan vətəndaşlarını birləşdirən, xalqımızı beynəlxalq aləmdə vahid amal, əqidə, məqsəd və məram ətrafında səfərbər edən milli təlim -azərbaycançılıq ideologiyasını da yaratdı. 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gələndə Azərbaycanda keçmiş kommunist ideologiyasından imtina edilmişdi. Lakin xalqı səfərbər edən, onun kimliyini, yaratdığı dövlətin xarakterini, milli mənəvi dəyərlərini qoruyub saxlayacaq və yönəldəcək milli sistem və ideya da ortaya qoyulmamışdı. Keçmişin bütün varlıqlarından, o cümlədən elmi, intellektual, mənəvi, ictimai dəyərlərindən total imtina meyli Azərbaycanda, sözün həqiqi mənasında ciddi ideoloji boşluq yaratmışdı. Əlbəttə, cəmiyyətin ideyasızlaşdırılması meyli, bir tərəfdən keçmiş kommunist rejiminə nifrətdən qaynaqlanırdısa, digər tərəfdən 1991-1993-cü illərdə Azərbaycanı idarə edənlərin aydın məqsəd və məramının yoxluğundan, idarə etdikləri dövlətin siyasi, iqtisadi, mədəni, mənəvi inkişafı haqqında dolğun təsəvvürə malik olmamasından irəli gəlirdi. Heydər Əliyevin dövründə Azərbaycan vətəndaşlarını vahid amal, ideya və məqsəd ətrafında birləşdirəcək milli ideologiyanın yaradılması dövlət siyasəti səviyyəsinə qaldırıldı. Bir faktı xüsusi vurğulamalıyıq ki, başqa sahələrdə olduğu kimi, milli ideoloji baxışlar sisteminin formalaşmasında da Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin varislik prinsipini saxladı və vaxtilə məhz onların birləşdirici ideya kimi irəli sürdüyü azərbaycançılıq ideologiyasına müraciət etdi. Heydər Əliyev qeyd edirdi ki, milli ideologiya tarixi keçmişimizlə, millətimizin adət-ənənələri, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır. Azərbaycançılıq ideologiyası məhz Heydər Əliyevin dövründə mükəmməl bir ideoloji təlim kimi ölkənin dövlət siyasətinə çevrildi.

Ayrıca, xüsusi olaraq vurğulamaq gərəkdir ki, Azərbaycanın mürəkkəb və taleyüklü tarixi dövründə dövlətə rəhbərliyin ağır məsuliyyətini öz üzərinə götürmüş Heydər Əliyevin müstəqil dövlət təlimi və onun ayrılmaz tərkib hissəsi olan azərbaycançılıq ideologiyasının həyata keçirilməsi müstəqil dövlətimizin bugünkü varlığının və gələcək inkişafının əsasını təşkil edir. Ulu öndərin siyasi xəttini davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin və xalqımızın firavan gələcəyinin təmin edilməsində Heydər Əliyevin müstəqil dövlət təliminin və azərbaycançılıq ideologiyasının alternativsiz bir yol olduğunu dəfələrlə bəyan etmişdir.

Dövlətimizin başçısı Azərbaycan xalqının zamanın sınaqlarına sinə gərərək, müasir dünya xalqları sırasında layiqli yer tutmasını öz dili və mədəniyyətini qoruması, milli mənəvi dəyərlərinə arxalanması ilə sıx bağlı olduğunu qeyd edir. Buna görə də bu gün elm və mədəniyyətə, vətənpərvərlik tərbiyəsinə, xalqımızın tarixi irsinə yetirilən diqqət dövlət quruculuğu siyasətinin tərkib hissəsi olub Heydər Əliyevin dövlətçilik təliminin yaradıcı şəkildə inkişafının təzahürü kimi özünü göstərir.

Təsadüfi deyildi ki, ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi, müstəqilliyin dönməzliyinin təmin olunması, dövlətçilik tariximizin müasir mərhələsinin kəsilməzliyinin təmin edilməsi kimi şərəfli bir vəzifəni yerinə yetirməklə məhdudlaşmayıb, həm də tarixi şüurumuzun bərpa olunması, dövlətçilik ənənələrinin qədim köklərinin üzə çıxarılması və müasir tariximizə qatılması sahəsində də məqsədyönlü iş aparırdı. Onun tərəfindən dəfələrlə nümayiş etdirilən tariximizə xüsusi diqqət və həssas münasibət sadəcə olaraq tarixin bir milli-mənəvi sərvət kimi qorunması təşəbbüsü deyildir. Bu xüsusi diqqət daha çox dərəcədə bugünkü milli dövlət quruculuğu işində, vətəndaşlıq duyğusunun, millətə, dövlətə, vətənə sevgi hissinin gücləndirilməsində tarixə söykənmək və gələcəyə gedən yolu daha möhkəm, daha dərin əsaslar üzərində salmaq istəyinin təzahürü idi...

Çox zaman Heydər Əliyevin dövlət quruculuğu sahəsindəki əsas xidmətinin sağlam qüvvələri səfərbər edərək güclü dövlət strukturları yaratmasında, müstəqilliyimizin, daxili, ictimai-siyasi sabitliyin real təminatçısı olan dövlət aparatı qurmasında görürlər. Bəli, 1993-cü ildən Azərbaycanda bütün atributlara malik güclü dövlət yaradıcılığına başlandı. Dövlət quruculuğu və onun hüquqi təminatı prosesi bu gün də davam edir. Bu, həqiqətən də, böyük nailiyyətdir. Lakin Heydər Əliyevin bu sahədəki daha böyük xidməti dərin qatda olduğundan, çox vaxt diqqətdən kənarda qalır. Bu, Azərbaycanda dövlət quruculuğu ilə yanaşı dövlətçiliyin inkişafı sahəsindəki xidmətlərdir.

Əlbəttə, Azərbaycanda dövlətçiliyin inkişafı ən çox onun ərazisində dövlət qurumlarının və siyasi liderlərin, böyük sərkərdələrin fəaliyyət göstərdiyi dövrlərlə bağlıdır. Və belə dövrlər Azərbaycan tarixində az olmamışdır. Ulu öndər Heydər Əliyev deyirdi: “Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, vətənin bütövlüyü xalqın birliyinin təcəssümü olmuşdur. Məhəmməd Cahan Pəhləvanın, Qızıl Arslanın, Uzun Həsənin, Şah İsmayıl Xətainin və başqa dövlət xadimlərimizin həyat və fəaliyyəti xalqın vətən sevgisi və dövlətçilik hissini daha da inkişaf etdirmiş, onu həyatın ən vacib, ən ümdə məqsədinə çevirmişdir”.

1993-cü ildən sonra bu istiqamətdə hadisələrin axarına diqqət yetirəndə, onun məqsədyönlü surətdə başqa bir məcraya yönəldildiyinin şahidi oluruq. Əsas kurs insanlarda etnik-milli duyğularla yanaşı, ictimai-siyasi özünüdərk duyğusunun, vətəndaşlıq duyğusunun formalaşdırılmasına yönəldilib. “Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir” (Heydər Əliyev), - ideyası bu sahədəki fəaliyyətin istiqamətini müəyyən edirdi...

Beləcə, dövlət işini duyğular, hisslər səviyyəsində, ictimai-şüur səviyyəsində ümumxalq işinə çevirmək, bununla da bizə xaricdən ancaq hüquqi-siyasi akt kimi təklif olunan demokratikləşdirmə prosesinə və bu aspektdəki hüquqi islahatlara real milli-mənəvi və idraki-psixoloji zəmin yaratmaq istiqamətində böyük işlər görülməyə başlayır. Dövlət işi ümumxalq işinə çevrilir. “Bir var dövlət işi ilə məşğul olan adamlar, bir də var adi vətəndaş. Adi vətəndaş da, əgər həqiqətən də, vətəndaşdırsa, deməli, öz vətəninə, burada gedən proseslərə, dövlətinə biganə qala bilməz” - Bu fikirlərin də müəllifi ümummilli lider Heydər Əliyevdir!

Heydər Əliyev siyasəti iqtisadiyyatdan, mədəniyyətdən, milli-mənəvi dəyərlərdən təcrid etmirdi. Onun özünün bir şəxsiyyət kimi hərtərəfli hazırlıqlı olması, bütün sahələrdə yüksək intellektual səviyyəyə malik olması xarici siyasət kursunun da kompleks şəkildə həyata keçirilməsinə imkan verirdi. Əgər Heydər Əliyevin çıxışlarını diqqətlə izləsək, görərik ki, onun ən böyük nailiyyət hesab etdiyi hadisə Azərbaycanın müstəqilliyi, ən çox vurğuladığı və diqqət verdiyi vəzifə isə müstəqilliyin dönməzliyinin təmin edilməsidir...

Lakin dövlət quruculuğu Heydər Əliyevin fəaliyyət strategiyasında özlüyündə son məqsəd deyildi. Dövlətin möhkəmləndirilməsi ona görə bir nömrəli vəzifədir ki, o, bizim müstəqil iqtisadi siyasətimizin və milli mənəviyyatımızın təminatçısı ola bilsin. “Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz” (Heydər Əliyev). İqtisadiyyatın inkişafı, adamların rifah halının yaxşılaşdırılması həmişə Heydər Əliyevin diqqət mərkəzində olmuşdur: “Biz həm ölkəmizin suverenliyini, ərazi bütövlüyünü qorumaq üçün çalışırıq, həm də vətəndaşlarımızın, xalqımızın rifahını yaxşılaşdırmağa, yaranmış vəziyyətdə müxləlif və yeni formalardan istifadə edərək iqtisadiyyatı inkişaf etdirməyə çalışırıq”. Heydər Əliyev fikrini bununla bitirmir və məsələyə tam dialektik bir mövqedən yanaşmaqla, sosial-iqtisadi proqramların həyata keçirilməsinin də, öz növbəsində, dövlətçiliyin möhkəmləndirilməsi, ictimai-siyasi sabitliyin bərqərar olması, mədəni-mənəvi həyatın təşəkkülü üçün bir şərt olduğunu qeyd edir. “İqtisadiyyat son məqsəd kimi yox, şərt kimi, təməl kimi, vasitə kimi

götürülür. Siyasi və mədəni-mənəvi aspektdəki nailiyyətlərin də çox vaxt iqtisadi təmələ söykəndiyi vurğulanırdı. İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir."

Heydər Əliyevi dinləyərkən, onun əsərlərini oxuyub dərindən təhlil edərkən, bir daha əmin olursan ki, müstəqilliyin ali məqsədi milli-mədəni və mənəvi dəyərlərin bərpa olunması, xalqın özünü dərk etməsi, öz mənliyinin sahibi olmasıdır. Heydər Əliyev nədən başlayıb nəyə doğru getmək lazım olduğunu çox gözəl bilir. Onun yolu təkcə siyasi müstəvidə deyil, həm də iqtisadi və mədəni-mənəvi müstəvidə istiqlal yoludur.

Çağdaş həyat ancaq öz daxili məntiqi ilə yaşaya bilməz. Tarixin öz makro-strukturu, yalnız böyük miqyaslarda üzə çıxan qanunauyğunluğu vardır ki, bunlar heç vaxt nəzərdən qaçırılmamalıdır. Vaxtilə baş vermiş hadisələr heç də tamamilə keçmişdə qalmayaraq, müasir həyatın strukturuna bir rüşeym və bir fon kimi daxil olur və onu istiqamətləndirir. "Tarix heç nəyi silmir", "tariximiz bizim üçün dərs olmalıdır", - deyir Heydər Əliyev. Lakin O, bununla heç də yalnız tarixi öyrənməyi və hafizələrdə yaşatmağı nəzərdə tutmur. O, tarixin həm də məhz çağdaş proseslərin iştrakçısı kimi nəzərə alınmasını tövsiyə edir, yeni dövrün tarixini yaradarkən də, onu həmişə böyük tarixin kontekstinə uyğunlaşdırmağa çalışırdı.

"**İki sahil**".-2013.-24 aprel.-N 71.-S.10-11.

# HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏT FƏLSƏFƏSİNİN ƏSAS PRİNSİPLƏRİ

**Qoşqar ƏLİYEV,**
Azərbaycan Tibb Universitetinin Fəlsəfə kafedrasının müdiri,
fəlsəfə elmləri doktoru, professor.

**Gənc demokratiyaların söykəndiyi mühüm ideoloji dayaqlardan biri hakimiyyət fəlsəfəsidir. Bu həqiqəti Azərbaycanın müstəqilliyini və demokratiyasını tarixi fəlakətdən xilas etmiş Heydər Əliyevin hakimiyyət fəlsəfəsi daha bariz şəkildə sübut etmişdir. Ümummilli liderin hakimiyyət fəlsəfəsinin maddi–mənəvi resursunu Azərbaycan xalqının tarixən formalaşmış azadlıq idealı və müstəqilliyini qorumaq əzmi təşkil edir. Bu həyat fəlsəfəsi özünün inkişafında uzun təkamül dövrü keçirib. Heydər Əliyevin hakimiyyət fəlsəfəsi və psixologiyası barədə fikir, ideya və müddəalarını konseptual şəkildə müəyyənləşdirsək, deməliyik ki, ulu öndərin müdrik fəlsəfəsi xalqının tarixi nikbinlik ideologiyasından bəhrələnmişdir. O, həmişə belə bir ideyanı aşılamağa çalışmışdır ki, millətin tarixi inkişafının keyfiyyəti xalqın siyasi iradəsindən və dövlət başçısının insani keyfiyyətlərindən asılıdır.**

Heydər Əliyevin hakimiyyət fəlsəfəsinin formalaşmasında mühüm metodoloji prinsip, bizcə, onun keçmiş tariximizə yaradıcı yanaşma tərzidir. O, heç zaman tarixi ənənəyə nihilist münasibət göstərməmiş və bunu mühüm tarixi–mədəni keyfiyyət kimi daim yadda saxlamağı cəmiyyətşünaslıq elmimizə tövsiyə etmişdir. Heydər Əliyev müdrik tarixi şəxsiyyət kimi tarixi keçmişi düzgün qiymətləndirdiyindən, öz dövrünün həqiqətləri ilə keçmişin dialektikasını aydın dərk etdiyindən, sosializm sisteminin məntiqi məhvini irəlicədən görmüş və bunun mühüm səbəblərindən birini də sovet hakimiyyət institutunun obyektiv ictimai qüsuru ilə əlaqələndirmişdir. Ona görə də ümummilli lider özünün siyasət fəlsəfəsinin mühüm tərkib hissəsi olaraq Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək və inkişaf etdirmək strategiyasını zamanın buna ehtiyac duyduğu bir məqamda işləyib hazırlamışdır.

Məlumdur ki, tam müstəqilliyə nail olmaq, onu inkişaf etdirmək xalqın liderindən çox mühüm tarixi məsuliyyət tələb edir. Heydər Əliyev həyata keçirdiyi milli inkişaf strategiyası ilə bu tarixi missiyanı ləyaqətlə yerinə yetirdi. Çox önəmli haldır ki, Heydər Əliyev özünün hakimiyyət fəlsəfəsində demokratiya institutunun formalaşmasına xüsusi yer ayırmışdır. Onun hakimiyyət nəzəriyyəsində demokratiya anlayışı dövlətin ictimai hakimiyyət forması kimi işlənmişdir. Mənbəyi xalq olan dövlət hakimiyyəti nəzəriyyəsində demokratiya tarixi hadisə kimi qiymətləndirilir, onun sosiomədəni transformasiya prosesləriIə bağlılığı göstərilir. Heydər Əliyev demişdir: "Demokratiya daim inkişafda, daim hərəkətdə olan bir prosesdir. Bu, bir mərhələdən o birisinə qədər təkmilləşmə yolu ilə getməlidir… bu təkmilləşmə təkamül yolu ilə olmalıdır. Çünki hər şeyə tezliklə nail olmaq çətindir".

Müasir sosial həyatımız göstərir ki, beynəlxalq münasibətlərin xarakteri sürətlə dəyişir. Yeni geosiyasi reallıqlar dünyanın regionlarından asılı olmayaraq demokratikləşmə proseslərinə güclü təsir göstərir. Müasir dövrdə adekvat strategiyanın işlənib hazırlanması demokratikləşmə prosesinin həyata keçirilməsi deməkdir. Onun başlıca mahiyyəti vətəndaşların, cəmiyyətin və dövlətin məsul işlərində geniş iştirakıdır. Heydər Əliyev hesab edirdi ki, bundan ötrü insanların təşəbbüskarlığına, hakimiyyəti təmsil edən orqanların fəaliyyətinə, onların xalqla əlaqəsinin möhkəmləndirilməsinə geniş şərait yaratmaq lazımdır. Demokratikləşdirmə prosesi, ilk növbədə milli inkişaf faktoru, qanunçuluğun və hüququn möhkəmləndirilməsi, seçki sisteminin təkmilləşdirilməsi, vətəndaşların azad fəaliyyətini təmin etməkdir. Göründüyü kimi, hakimiyyət və idarəetmə demokratikləşmə prosesinin nüvəsini təşkil edir. Ona görə də özünün hakimiyyət fəlsəfəsində Heydər Əliyev dövlətçiliyin rasional idarə olunması probleminə üstünlük vermişdir.

Xalqımızın milli və tarixi həyatının ən ağır günlərində istedadlı təşkilatçı kimi ulu öndərimizi xalqının təkcə tarixi keçmişi deyil, həm də dövlətçilik ənənəsi dərindən düşündürmüşdür. Təsadüfi deyildir ki, Heydər Əliyev xalqın tələbi ilə ikinci dəfə ölkə rəhbərliyinə qayıtdıqdan sonra hakimiyyət məsələsi ilə məşğul olarkən bu sahədə özünün müdrik prinsipial mövqeyini bildirmişdir. Hakimiyyətlə bağlı görüşlərində Heydər Əliyev belə bir mühüm metodoloji prinsipdən çıxış edirdi ki, hakimiyyət institutu—sosial–siyasi sistemin optimal fəaliyyəti üçün vətəndaşların davranışı hüquqi normalara və bəşəri dəyərlərə uyğun gəlməli və bunlar bacarıqla əlaqələndirilməlidir. O, müstəqilliyin ilk günlərində Azərbaycan xalqının mənəvi–əxlaqi hüquqlarını nəinki qorumayan, hətta onları pozan iqtidarın səriştəsizliyini çox narahatlıqla, ürək ağrısı ilə qarşılamışdı. Heydər Əliyev özünün zəngin dövlətçilik təcrübəsindən bilirdi ki, hakimiyyət məsələsində insanın və cəmiyyətin mənafelərinin reallaşdırılmasına optimal şərait yaratmaq lazımdır.

Bu gün belə bir həqiqət mövcuddur ki, hazırda yeni demokratiyalar onlar üçün tamamilə yeni olan sosial–siyasi reallıqlarda inkişaf etməli olurlar. Siyasi həyatın dialektikasını gözəl bilən ümummilli lider əmin idi ki, milli inkişaf perspektivlərini müəyyən etmək üçün onun imkanlarını, sosial gerçəkliyi dərindən öyrənməklə dialektik təhlil etmək lazımdır. Bu imkanlar, birincisi, hər bir maddi strukturun bütöv sistemə münasibətində götürəndə məlum olur ki, burada nisbi müstəqillik, həm də müəyyən mənada azad seçimlə bağlıdır. İkincisi, obyektiv gerçəkliyin və zərurətin özü təbiət və cəmiyyət çərçivəsində bilavasitə və birbaşa deyil, təsadüf və kortəbii vasitələrlə reallaşır ki, bu da ətraf aləmin hadisə və proseslərində nəticəsi irəlicədən bilinməyən müəyyən elementi meydana gətirir. Əgər problemin qoyuluşuna və həllinə bir vahid sinergetik baxımdan yanaşsaq, onda bu prosesi qeyri–xətti proses kimi qiymətləndirmək lazım gəlir. Üçüncüsü, maddi resurslarda olan qüsur nəticəsində dünyada müəyyən yerə malik olmaq uğrunda rəqabət və mübarizə başlayır. Dördüncüsü, seçilmiş istiqamətin düzgünlüyünün, yaxud qeyri–düzgünlüyünün meyarı mövcud struktur deyil, əksinə onun məxsus olduğu bütövlük çıxış edir. Buradan da Heydər Əliyevin hakimiyyət konsepsiyasına istinad edərək onu demək olar ki, insanların fəaliyyətini obyektiv proseslərlə əlaqələndirmək üçün onların əxlaqi davranışlarına müəyyən qədər adekvat siyasət işləyib hazırlamaq lazımdır. Bu cür zəruri nəzəri ideyaların tərbiyəvi rolunu artırmaq məqsədilə Heydər Əliyev həmişə belə bir konsepsiyadan çıxış edib ki, hər bir siyasətin uğurlu əsasları insanın öz təbiətindədir.

Azad iradəyə malik hər bir insan bilməlidir ki, siyasət təkcə ətraf şəraitin tələblərini deyil, həm də vətəndaşların siyasətdə fəal iştirakını əks etdirməlidir. Ulu öndərin xalq tərəfindən seçilmiş hakimiyyətin müdrikliyi və mahiyyəti bunda idi ki, o reallıqlara söykənərək subyektiv faktorların, siyasətin obyektiv şəraitdə—özü də onların həlledici rolu da nəzərə alınmaqla uyğunsuzluq, ziddiyyətlər və konfliktlər yarada biləcəyini nəzərdə tuturdu. Hakimiyyət fəlsəfəsinin mahiyyətini yaradan məhz bu komponentlərdir. Təcrübəli siyasətçi kimi Heydər Əliyev məsləhət bilirdi ki, əgər obyektiv şərait yetişməyibsə, hətta düzgün siyasəti rəhbər tutan hər bir lider real siyasi fəaliyyətdə iştirak edə bilməz, deməli, onun real nailiyyətlər də qazanması mümkün deyildir. Başqa sözlə, real sosial şərait olmadan lider əsl siyasətdə iştirakdan məhrumdur. Lakin sosial–siyasi şəraitin idarə olunması da müəyyən problemlərlə müşayiət olunur, belə ki, şəraitin olması hələ uğur qazanmaq deyil, çünki şəraitin özü də avtomatik reallaşmır, o, təsadüflərlə şərtlənir, özü də şərtlərin özünün hazırlığı müxtəlif dərəcədə olur. Deməli, lider real konkret şəraitə uyğun oriyentasiya seçməyi bacarmalıdır. Siyasətin köməkliyi ilə yetişmiş imkan reallaşmış gerçəkliyə çevrilir. Siyasi liderin müvəffəqiyyətli idarəçiliyinin rəhni bundadır. Öz fəaliyyətində arzu edilən uğuru qazanmaq üçün ulu öndər Heydər Əliyev zəruri olaraq siyasi hakimiyyətin və liderliyin əsasında duran müəyyən qanunların obyektiv şəraitə uğunluğunu əsas tuturdu. Təcrübəli dövlət başçısı kimi Heydər Əliyev çox gözəl bilirdi ki, siyasətdə də, sənət sahəsində olduğu kimi, müxtəlif qrup qanunlar mövcuddur və bu qanunları düzgün tətbiq etmək üçün onların mahiyyətini dərk etmək vacibdir. Heydər Əliyevin hakimiyyət fəlsəfəsi prinsiplərinin dərindən öyrənilməsi belə bir mülahizədən çıxış etməyə əsas verir ki, siyasətdə obyektiv imkanı gerçəkliyə çevirmək məqsədilə cəmiyyətin sosial resurslarından bacarıqla istifadə yolu ilə konkret şəraitdə cəmiyyətin, sosial institutların, fərdlərin optimal fəaliyyətini təmin edən faktoru əsas qanun kimi təsnif etmək olar. Burada siyasi hakimiyyətin məqsədi, həmçinin onun təminatının vasitələri müəyyən edilmiş olur. Bizə elə gəlir ki, Heydər Əliyevin hakimiyyət fəlsəfəsinin funksiyası və təsnifatı bu prinsiplərlə bağlıdır. Özünün idarəetmə fəlsəfəsinin əsas funksiyasından çıxış edərək ümummilli lider siyasi fəaliyyət konsepsiyasını işləyib hazırlamışdır. Bu nəzəriyyənin potensial imkanları çərçivəsində lider öz fəaliyyətini ictimai həyatın müxtəlif sahələri arasında, yəni cəmiyyətin ümumi mənafeləri ilə vətəndaşların maraqları arasında tarazlığı təmin etməyə yönəldir.

Heydər Əliyevin elmi cəhətdən inandırıcı şəkildə yaratdığı, əsaslandırdığı hakimiyyət fəlsəfəsi liderə siyasi hakimiyyət strukturlarında nöqsan buraxmağa, səhv etməyə imkan vermir, çünki lider insan təbiətinin sosial əhəmiyyət kəsb edən keyfiyyətlərinin tələblərinə uyğun hərəkət etməyə və onların optimal təzahürü üçün sosial və təbii şəraiti yaratmağa imkan verir. Heydər Əliyevin fəaliyyətinin idraki əhəmiyyəti bundadır ki, o, fəlsəfi düşüncəyə malik milli lider kimi nəinki ümumi inkişaf tendensiyalarını, həmçinin mövcud tarixi məqamda onların meydana gəlməsini də nəzərə alırdı. Heydər Əliyevin dünya siyasətində tanınmış lider kimi müvəffəqiyyətlərinin tərkib hissələrindən biri budur ki, o, özünün fəaliyyətində cəmiyyətin intellektual qüvvələrinə söykənir, əsl milli ziyalı sözünə və fikrinə diqqətlə və hörmətlə yanaşırdı. Heydər Əliyevin liderlik fəaliyyətinin çox önəmli cəhətlərindən biri odur ki, hadisələrin məqsədində əsas vəsiləni məharətlə sezirdi, onu yaradıcılıqla həyata keçirməyə nail olurdu. Başqa sözlə, Heydər Əliyevin hakimiyyət fəlsəfəsi liderdə öz fəaliyyətində məqsədi düzgün müəyyənləşdirmək şüurunu, həmçinin ona nail olmağın nəzəri bacarığını formalaşdırırdı.

Məhz Heydər Əliyevin hakimiyyət fəlsəfəsinin obyektiv elmi prinsipləri Azərbaycanın gələcək müstəqilliyinin möhkəm əsaslarının yaradılmasında mükəmməl ideoloji zəmin rolunu oynamışdır. Bu gün

Azərbaycan öz müstəqilliyinin ürəklərdə və düşüncələrdə parlaq iz qoyan günlərini yaşayır. Bu ona görə mümkün olmuşdur ki, Azərbaycan dövlətçiliyinə Heydər Əliyevin hakimiyyət fəlsəfəsinin ölməz ideyaları ilə silahlanmış Azərbaycan Prezidenti İlham Əliyev inamla rəhbərlik edir. Azərbaycan tarixində ən müdrik dövlət xadimlərindən biri, tanınmış böyük strateq, görkəmli dövlət başçısı və siyasətçi Heydər Əliyev siyasi kursu uğurla davam etdirilir. Müstəqil Azərbaycan dövləti bu gün bütün dünya azərbaycanlılarının ümummilli inkişafı naminə fəaliyyət göstərir. Bu fəaliyyətin əsasını Heydər Əliyevin hakimiyyət fəlsəfəsini özünün dünyagörüşünün meyarı seçmiş Azərbaycan Prezidenti İlham Əliyevin parlaq intellekti təşkil edir.

**“Respublika”.-**2013.-24 aprel.-N 85.-S.5.

# HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT KURSU: DÜNYA SİSTEMİNİN YENİDƏN QURULMASI KONTEKSTİNDƏ

**Novruz MƏMMƏDOV,**
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbərinin müavini,
Prezident Administrasiyasının xarici əlaqələr şöbəsinin müdiri,
YAP Siyasi Şurasının üzvü

**XX əsrin 90-cı illərində Azərbaycan müstəqilliyini bərpa etdiyi zaman dünya miqyasında mürəkkəb və ziddiyyətli geosiyasi proseslər baş verirdi. Belə bir şəraitdə müstəqil dövlət qurmaq son dərəcə müdrik, yaradıcı və çevik yanaşma tələb edirdi. Müstəqillik və suverenlik anlayışları yeni məzmun çalarları kəsb etməyə başlamışdı. Hər bir ölkənin müstəqilliyi onun ətraf aləmlə qarşılıqlı münasibətlərinin xarakteri və məzmunu ilə sıx bağlı olurdu. Qlobal güclərin dünyanı bir-birindən "qarşılıqlı asılı olan" dövlətlər sistemi kimi qəbul etməsi bir tərəfdən əməkdaşlıq imkanlarını artırırdısa, digər tərəfdən bir sıra siyasi-ideoloji və geosiyasi modellərin ixracı üçün əsas hazırlayırdı. Bu səbəbdən müstəqilliyinə qovuşmuş dövlətlər xarici təsirlərlə daxili potensiallarını uyğunlaşdırmaq məcburiyyəti qarşısında qalmışdılar. Müstəqil dövlət quruculuğunun uğurlu olması üçün bunun mühüm əhəmiyyəti vardı. O cümlədən, daxili siyasətlə xarici siyasət bir-birini tamamlamalı idi. Azərbaycan 1993-cü ildən başlayaraq bu vəzifənin öhdəsindən gəlməyə başladı.**

Ümumilikdə isə bu vəzifə milli, regional və qlobal maraqları uzlaşdıran inkişaf strategiyasının tərkib hissəsi idi. Təcrübə göstərdi ki, bu strategiya həm müstəqil demokratik dövlət quruculuğunu uğurla aparmağa, həm Cənubi Qafqazın aparıcı dövlətinə çevrilməyə, həm də regional lider olmağa imkan yaratdı. Bu prosesdə xarici siyasət kursunun xüsusi yer tutduğunu etiraf etmək gərəkdir.

Keçən əsrin 90-cı illərinin əvvəllərində dünya miqyasında baş verən gərgin, dinamik və sürətli geosiyasi proseslər Azərbaycana da təsir etdi. Lakin təəssüf ki, həmin dövrdə ölkəyə rəhbərlik edən şəxslərin yarıtmaz siyasəti ucbatından Azərbaycan geosiyasi baxımdan təcrid olunmuş siyasi həyat yaşayırdı. Yerli siyasi qrupların məhdud maraqları bütün digər faktorları kölgədə qoymuşdu. Bəzi dairələr Ermənistan vasitəsilə 1993-cü ilin əvvəlində Qarabağda işğal əməliyyatlarını genişləndirir, Azərbaycanın içərilərinə doğru ekspansiya siyasətinə əl atırdılar.

1993-cü il iyunun 15-dən situasiya dəyişməyə başladı. Bu, Heydər Əliyevin Naxçıvandan Bakıya dəvət edildiyi gün idi. Heydər Əliyev qarşısında duran vəzifələri həll etmək üçün yalnız siyasi-diplomatik üsula üstünlük verdi. Ən çətin anlarda belə, Heydər Əliyev danışıqlar, diplomatiya yolunu seçdi. Əvvəla, bununla o, cəmiyyətimizin fərqli cəhətlərini nəzərə alaraq gələcək düşmənçiliyin yaranmasına imkan vermədi, ikincisi, xarici düşmənlərin bundan yararlanmaq şansını əldə etməsinin qarşısını kəsdi, üçüncüsü, Azərbaycanın siyasi səhnəsində diplomatik fəaliyyət mədəniyyətinin yerini möhkəmləndirdi, dördüncüsü, növbəti nəsil siyasətçilərə nümunə oldu.

Heydər Əliyev bu kimi gedişlərlə faktiki olaraq xarici siyasətin də ümumi cizgilərini və əsas metodlarını yaratdı. O, daxili problemləri həll etmək üçün tətbiq etdiyi siyasi və diplomatik məharətə əsaslanan üsulları xarici siyasi fəaliyyətə proyeksiyaladı. İndi hər kəsin haqqında danışdığı "balanslaşmış xarici siyasət kursu"nun rüşeymləri o vaxtlarda formalaşdı.

Heydər Əliyev Azərbaycanın düşdüyü konkret geosiyasi və tarixi şəraiti nəzərə alaraq xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirməyə başladı. Əvvəlcə, nəzərə alındı ki, qlobal səviyyədə geosiyasi mühit Qərbin xeyrinə ciddi surətdə dəyişib. İkincisi, Rusiya ilə əlaqələri kəsmək çox təhlükəli və tarixi gerçəklik baxımından perspektivsizdir. Üçüncüsü, Türkiyə məlum səbəblərdən bölgədə strateji tərəfdaş olmalıdır. Dördüncüsü, İran böyük qonşumuz və ortaq tarixə malik olduğumuz cəmiyyət kimi xarici siyasətdə ciddi yer almalıdır. İranla əməkdaşlıq xətti seçilməlidir. Beşincisi, strateji istiqamət olaraq Qərbə inteqrasiya xətti götürülməlidir.

Heydər Əliyev bu konsepsiyanın fonunda Azərbaycanın regionda olan digər dövlətlərə yönəlik xarici siyasət kursunu müəyyənləşdirdi. Bununla da, balanslaşmış xarici siyasət dərin təhlil əsasında dəqiq hesablanmış siyasi proqnozlara uyğun olaraq qurulurdu. Bu siyasətin mərkəzində güclü Azərbaycan dövləti və demokratik cəmiyyət yaratmaq dururdu. Onun əsas vəzifələrindən biri ölkənin pozulmuş ərazi bütövlüyünü təmin etmək idi. Çünki ərazi bütövlüyü təmin edilməyən dövlətin tam mənada davamlı inkişaf etməsi mümkün deyildi. Hər an münaqişə amilindən yararlanıb, Azərbaycana istədiklərini qəbul etdirməyə cəhdlər edərlər. Bunu böyük güclər daha yaxşı bilirlər, elə bu məqsədlə də Azərbaycanın səylərinə baxmayaraq, keçən əsrin 90-cı illərinin

ortalarından Dağlıq Qarabağ münaqişəsi donduruldu. Nə BMT-nin qətnamələri yerinə yetirildi, nə də Ermənistanı sözdə deyil, əməldə işğalçı elan edib, müvafiq addımlar atıldı.

Əksinə, təcrübə göstərdi ki, böyük güclər zaman-zaman Ermənistanın başına sığal çəkmək, ona silah satmaqla sürətlə inkişaf edən Azərbaycan üçün təhlükə mənbəyinin qaldığını nümayiş etdirdilər. 1993-1995-ci illərdə erməni qoşunlarının Azərbaycan ərazilərindən çıxarılmasına çalışmaq əvəzinə, Bakıda dövlət çevrilişi planları hazırlayıb, ölkəni yenidən xaosa sürükləməyə cəhd edildi. Bu çevrilişlərin ssenariləri xaricdə hazırlanırdı. Görünür, hələ keçən əsrin 50-ci illərində Fridrix Avqust fon Hayekin dediyi "biz (avropalılar) etiraf etməliyik ki, çox səhvlər buraxmışıq və davranışımızı dəyişməliyik" tövsiyəsini nəzərə almayanlar az deyil. Bəziləri hələ də öz gözündə tiri görməyib, başqasının gözündə tük axtarmaq vərdişindən əl çəkmək istəmir. Hər bir halda, Azərbaycanın çətinliklərindən istifadə edib ona təzyiq göstərmək, sözəbaxan hakimiyyət formalaşdırmaq işi heç bir siyasi əxlaq normasına sığmır. Azərbaycanı əhatə edən böyük dövlətlərin, hətta min kilometrlərlə uzaqda olanların öz ambisiyaları vardı. Onlar bilirdilər ki, Azərbaycana nəzarət etmək bütövlükdə Cənubi Qafqaza nəzarət etmək demək idi.

Bunun səbəbi, Hafiz Paşayevin fikri ilə ifadə etsək, Azərbaycanın "G üçlüyü" (Geography, Geology, Geopolitics) ölkəsi olmasıdır. "3G" müasir tarixi şəraitdə ölkənin coğrafi yerinə, geoloji zənginliyinə və geosiyasi mövqeyinə uyğun olaraq çox əhəmiyyətli olduğunu ifadə edir. Bu xüsusiyyətlərinə görə Azərbaycan həmişə böyük dövlətlərin maraq mərkəzində olub. Bu fikir Heydər Əliyevin XXI əsrin və üçüncü minilliyin gəlişi ilə bağlı Azərbaycan xalqına etdiyi müraciətdə elmi-nəzəri-praktiki cəhətdən dəqiq əsaslandırılıb.

Azərbaycan müxtəlif sivilizasiyaların kəsişmə məkanı, fərqli dinlərin və mədəniyyətlərin yanaşı yaşadığı yer olub. Müasir tarixi mərhələdə enerji daşıyıcılarının əhəmiyyətini nəzərə alsaq, böyük dövlətlərin ölkəmizə olan maraqlarını tam təsəvvür edə bilərik. Məlumdur ki, enerji siyasəti XX əsrin ikinci yarısından dünya geosiyasətinin əsas prioritetlərindən biri və bəzən birincisi hesab olunur. Azərbaycanın zəngin neft və qaz ehtiyatlarına malik olması böyük dövlətlərin diqqətini çox çəkirdi. Lakin onların bir böyük səhvi vardı - onlar bu zənginlikdən yararlanmaq üçün onun sahibi olan Azərbaycanın müstəqilliyini, sərbəst qərar vermək, kiminlə istəsə, onunla əməkdaşlıq etmək haqqını tanımaq istəmirdilər.

Görünür, tarixdə baş verən bəzi hadisələr də onlarda müəyyən təsəvvür formalaşdırmışdı. Çünki 300 il əvvəl Azərbaycan parçalanandan sonra burada fəaliyyət göstərmək üçün Bakıdan heç nə soruşmurdular. Nə Nobel qardaşları, nə də onlardan sonra gələnlər neft çıxarmaq icazəsini Azərbaycandan almadılar. Bununla da, belə təəssürat yarana bilərdi ki, kim bacarırsa, bu ölkənin sərvətlərini talan edə bilər, razılıq almağa isə ehtiyac yoxdur. Geosiyasi müstəvidə cərəyan edən proseslərin ümumi istiqaməti isə burada vəziyyəti daha da mürəkkəbləşdirdi.

Məsələ, Z.Bjezinskinin qeyd etdiyi kimi, geosiyasi "qravitasiya mərkəzinin Qərbdən Şərqə meyillənməsi" prosesi ilə bağlı idi. Deyirlər ki, Hitlerdən ad günündə dünyanın xəritəsi olan tortun hansı hissəsindən pay istədiyini soruşanda Azərbaycanı göstəribmiş.

Bu gün Azərbaycan çox mühüm ölkədir. O, Cənubi Qafqazda həlledici geosiyasi oyunçudur. Azərbaycan həm də Şərqə və Mərkəzi Asiyaya açılan "geosiyasi pəncərə"dir. Cənubi Qafqazın başqa bir ölkəsinin coğrafi, geoloji və geosiyasi xarakteristikalarına görə bu funksiyanı yerinə yetirməsi imkanı yox dərəcəsindədir.

Bütün bunlar onu göstərir ki, qlobal səviyyədə gedən geosiyasi proseslərin ümumi məntiqi, postsovet məkanının geosiyasi xüsusiyyətləri, Cənubi Qafqazda yaranmış ümumi vəziyyət və Azərbaycanın öz daxili siyasi mühitinin ziddiyyətləri sistem halında ölkənin strateji seçimini xeyli çətinləşdirmişdi. Bu cür iyerarxik maraqlar sistemini nəzərə almadan ümumi inkişaf strategiyası və onun tərkib hissəsi olan xarici siyasət kursu seçilə bilməzdi.

Heydər Əliyev bu mürəkkəb vəziyyətdə xarici siyasətin qarşısında duran vəzifələri və onun prioritetlərini dəqiq müəyyənləşdirdi. Yığcam şəkildə həmin vəzifələr barədə ulu öndər 1993-cü il oktyabr ayının 10-da Prezident seçilməsi ilə bağlı keçirilən andiçmə mərasimində danışmışdır. Ulu öndər bəyan edirdi: "Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir". Bunun üçün önəmli vəzifə kimi ümummilli lider bərabərhüquqlu əlaqələr yaratmağı qarşıya qoyurdu. Bu tezisin geosiyasi mənası dərindir. Mərkəzə dövlətin müstəqilliyinin təmin edilməsi gətirilir. Bu o deməkdir ki, Azərbaycan bundan sonra müstəqilliyini qətiyyətlə qoruyacaq.

Azərbaycanın xarici siyasəti son məqsəddə güclü dövlətlə güclü cəmiyyət modellərinin harmoniyasını təmin etməkdən ibarətdir. Bu yolda bütün xarici tərəfdaşlarla balansı həmişə saxlamaq mümkün olmaya bilər. Müasir tarixi mərhələdə bu, əsas şərt deyil. Çünki geosiyasi və geoiqtisadi proseslər o dərəcədə sürətlə dəyişir ki, hər hansı statik durumun formalaşmasına ehtiyac yoxdur. Bu məntiqlə balans modeli də yeniləşməlidir. Burada əsas

şərt əməkdaşlığa daim açıq olmaq və əlaqələr sistemini sivil qaydalar daxilində formalaşdırmaqdan ibarətdir. Həmin mənada balans dinamik, çevik və tarazlı münasibətlər sisteminin qurulması anlamına gəlir. Güclü dövlətlə güclü cəmiyyətin bir-birini tamamlaması məhz bu dinamizmdə öz təsdiqini tapır. Olduqca maraqlı, aktual və vacib bir müddəadır. Xarici siyasəti dövlət quruculuğu və cəmiyyətin inkişaf fəlsəfəsi ilə mükəmməl əlaqələndirməyin nümunəsidir. Qarşıya bu vəzifə qoyulursa, qətiyyətlə Azərbaycanın diplomatik xidmət sahəsini, diplomatiyanın metodlarını inkişaf etdirmək və onu daxili inkişafın tempinə uyğunlaşdırmaq lazım gəlirdi. Bunun üçün ilk növbədə, xarici siyasətin daha konkret səviyyədə vəzifələrini aydınlaşdırmaq lazım idi.

Bu vəzifələr içərisində ilk sırada Azərbaycanın müstəqilliyinə və suverenliyinə təminat almaq dururdu. Münaqişələr və Dövlət Quruculuğu üzrə London İnformasiya Şəbəkəsinin (LİNKS) icraçı direktoru Dennis Sammut qeyd edir ki, 1990-cı illərin ortalarında xarici siyasətin iki əsas məqsədindən biri Azərbaycana suveren dövlət kimi təminatlar almaqdan ibarət idi. 1993-1995-ci illərdə Azərbaycanda baş verən siyasi hadisələrə nəzər yetirsək, bu vəzifənin nə qədər çətin olduğunu anlaya bilərik. O zaman daxildə qanunsuz hərbi qruplaşmalar xaricdən aldıqları dəstək sayəsində Azərbaycanın müstəqilliyinə və suverenliyinə ciddi ziyanlar vurmaq yolunu seçdilər. Bir-birinin ardınca dövlət çevrilişinə cəhdlər oldu. Bu hadisələrin arxasında Azərbaycanın "Əsrin müqaviləsi"ni imzalaması və Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsinə qərar verməsinin durduğu indi hər kəsə məlumdur. Həmin dövrü Azərbaycanın suverenliyi və müstəqilliyinin təmininin ən böhranlı mərhələsi adlandırmaq olar. Ölkəmiz müəyyən mənada "suverenlik və müstəqillik imtahanı verirdi".

Bu məqamda Heydər Əliyevin siyasi-diplomatik peşəkarlığı ilə böyük rəhbər və insan kimi güclü iradəsi həlledici rol oynadı. Azərbaycanı yolundan döndərmək mümkün olmadı. Ölkə beynəlxalq aləmdən suverenliyinə və müstəqilliyinə təminat ala bildi və iki istiqamətdə strateji dividend əldə etdi. Birincisi, Qərblə strateji əməkdaşlığa hazır olduğuna dünyanı inandırdı. İkincisi, bu strateji əməkdaşlığın imkanlarından yararlanaraq öz iqtisadiyyatının gələcək inkişafını təmin etmək imkanı qazandı. 1995-ci ilin martında növbəti dövlət çevrilişi cəhdinin qarşısı alınandan sonra Qərblə əməkdaşlıq sazişlərinin bağlanması yolları tam açıldı. 1995-1998-ci illərdə Heydər Əliyev Avropa İttifaqının böyük dövlətləri, o cümlədən Böyük Britaniya ilə (1997-ci il) strateji xarakterli sənədlər imzaladı. Həmin sənədlərdə iqtisadi əməkdaşlıq şərtləri Azərbaycanda siyasi islahatlar və demokratik təsisatların yaradılmasına yardım proqramları ilə yanaşı dururdu. Yəni ulu öndər peşəkar səviyyədə iqtisadi infrastrukturun yaradılmasını siyasi islahatlar proseslərinin dinamikası ilə uyğunlaşdırdı.

Məlumdur ki, həmin illərdə neft müqavilələri sahəsində danışıqlar prosesinə o zaman ARDNŞ-in birinci vitse-prezidenti olan İlham Əliyev rəhbərlik edirdi. Sonralar o günləri xatırlayan İlham Əliyev deyirdi, "...neft müqavilələrini imzalayarkən mən, ilk növbədə, geosiyasi məsələləri qaldırır, yalnız bu sahədə anlaşma əldə olunandan sonra texniki-iqtisadi problemlərin təhlilinə keçir, hər bir məsələni konkretləşdirməyə başlayırdım". Azərbaycan rəhbərliyinin bu gedişləri yalnız taktiki xarakter daşımırdı. Bəlkə də həmin dövr üçün mühüm əhəmiyyəti olan maliyyə gəlirindən çox, gələcək üçün prinsipial məna kəsb edən tərəfdaş kimi etimad qazanmaq daha önəmli idi. Azərbaycan həmin illərdə peşəkar diplomatik və siyasi-iqtisadi gedişləri ilə etibarlı tərəfdaş imicini qazandı.

İndi Ermənistan siyasətçiləri və diasporu Azərbaycanın enerji siyasətinin Dağlıq Qarabağı ermənilərin əlindən almaqda olduğunu açıq deyirlər. Məsələn, Avropanın erməni assosiasiyaları forumunun rəhbəri Aşot Qriqoryan 2012-ci il mayın 22-də keçirdiyi mətbuat konfransında bu haqda birmənalı fikir söyləyib. O, təşvişlə deyir: "Təəssüf ki, Azərbaycanın neft faktoru getdikcə daha həlledici olur və bunun fonunda biz məhv olduğumuzu görürük...". 1993-1995-ci illərdə atılan addımlar, formalaşdırılan xarici siyasət və diplomatik gedişlər bu günün uğurları naminə edilirdi.

Enerji faktorunu xarici siyasətin aktual məsələsinə çevirməklə Azərbaycan özünün təhlükəsizliyini regional və beynəlxalq təhlükəsizlik sistemi ilə sıx əlaqələndirirdi. Həmin bağlantını yaratmaq Azərbaycanın xarici siyasəti üçün olduqca əhəmiyyətli idi. Çünki torpaqlarının müəyyən hissəsi işğal edilmiş ölkənin ərazi bütövlüyünü təmin etmək şansı əldə etməsi üçün bütövlükdə dövlət kimi təhlükəsizliyinə təminat lazım idi. Bu təminatı real olaraq regional və beynəlxalq təhlükəsizlik sistemində Azərbaycanın yerini dəqiq müəyyənləşdirmək hesabına almaq mümkün idi. Burada konkret mexanizm çərçivəsində enerji faktorundan istifadə etmək əvvəlcədən düşünülmüş qərar idi. Çünki dünyanın bütün inkişaf etmiş ölkələrinin enerjiyə böyük ehtiyacı vardı və onu daha etibarlı yolla nəql etmək zərurəti keçən əsrin 90-cı illərində daha aydın dərk edilirdi. Azərbaycan enerji amilini xarici siyasətinin əsas elementlərindən birinə çevirməklə regional və qlobal səviyyədə cərəyan edən geosiyasi və geoiqtisadi proseslərin mahiyyətini dəqiq qiymətləndirdiyini sübuta yetirdi. Bu məqam indi də xarici siyasətdə güclü bir vasitə kimi öz pozitiv rolunu oynamaqdadır.

Yuxarıdakı mülahizələrdən görünür ki, Azərbaycan suverenliyini və təhlükəsizliyini təmin etmək üçün xarici siyasət vasitəsi ilə regional və qlobal səviyyədə uyğun siyasi mühit yaratmalı idi. Bu məqsəd geniş spektrli və şaxəli xarici siyasət yeritməyi qarşıya vəzifə kimi qoyurdu.

Xarici siyasətin vəzifələrini bir neçə qrupda birləşdirmək olar. Birinci qrupa Azərbaycanın beynəlxalq və regional təşkilatlarda təmsil olunmasını, dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri yaratmasını, dövlətlərlə tərəfdaşlıq və müttəfiqlik münasibətləri qurmasını aid etmək olar. İkinci qrupa ölkənin azad bazar iqtisadiyyatı yolu ilə irəliləməsi üçün uyğun beynəlxalq şəraitin yaradılmasını, Azərbaycanın bütün beynəlxalq təşkilatlarda, o cümlədən iqtisadi yönümlü təşkilatlarda fəal iştirakının təmin edilməsini, xalqın mənafeyinə tabe edilmiş xarici iqtisadi siyasət yeridilməsini, ölkə iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyasının təmin edilməsini aid edə bilərik. Nəhayət, üçüncü qrupa əhalinin əsas hüquq və azadlıqlarının qorunmasına yönəlmiş beynəlxalq normaların həyata keçirilməsinə şərait yaradılması, regionda mehriban qonşuluq münasibətlərinə üstünlük verilməsi, Azərbaycana qarşı olan xarici təzyiqlərin qarşısını alan beynəlxalq himayənin və xarici ölkələrlə geniş informasiya mübadiləsinin mexanizmlərini formalaşdırmaq daxildir.

Göründüyü kimi, 1993-cü ilin ikinci yarısından Azərbaycan sistemli bir xarici siyasət kursu götürmüşdür. Onun tərkibində qlobal geosiyasi mühitin nəbzini tutan, beynəlxalq münasibətlər sistemində dövlətimiz üçün əlverişli şərait yaradan, ölkənin bütün regionlarda yerləşən dövlətlərə əməkdaşlığını təmin edən istiqamətlər var. Bununla yanaşı, həmin kursda bazar iqtisadiyyatına keçid qarşısında yaradılan əngəlləri aradan qaldırılmasını və insan haqlarına əməl olunmasını təmin edəcək prioritetlər yer alıb. Bu istiqamətlər sistem halında Azərbaycanda güclü dövlət və demokratik cəmiyyət quruculuğu prosesini uğurla başa çatdırmaq üçün lazım olan xarici və daxili şərait yaratmalıdır.

Bu vəzifələrin fövqündə ölkənin ərazi bütövlüyünün təmini, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinin xarici siyasətin başlıca vəzifəsi olması qətiyyətlə nümayiş etdirilir. Bu münaqişə aradan qaldırılmasa, qarşıda duran vəzifələrin tam həllinə təminat yoxdur. Faktiki olaraq, bu problemin həll edilməsi Azərbaycanın güclü müstəqil dövlət olaraq tarixi sınağıdır. Çünki ərazi bütövlüyü təmin edilməyən ölkənin davamlı və təminatlı inkişafı olduqca çətindir. Münaqişə qaldıqca dövlətin təhlükəsizliyinə təhdidlər də qalır. Bunlara görə, Azərbaycanın ərazi bütövlüyünün təmini hər üç qrupun hər bir bəndində öz ifadəsini tapır. Bütövlükdə, xarici siyasət kursu bu problemi özündə əks etdirir.

Bu gün Azərbaycanın xarici siyasət sahəsində ciddi uğurları göz qabağındadır. Keçən müddət ərzində xarici siyasət güclü dövlətin yaradılması işində üzərinə düşənləri yerinə yetirib. Dünyada geosiyasi situasiya sürətlə dəyişdiyindən xarici siyasətin arsenalında da yeniləşmələr baş verir. Artıq qeyd etdiyimiz kimi, XXI əsrin başlanğıcı risklərin və böhranların yaranması ehtimalının artması ilə xarakterizə olunur. Ümumiyyətlə, tarixə nəzər salsaq, ötən əsrlərin əvvəlləri də belə gərginliklərlə müşahidə olunub və müharibələr baş vermişdir. Buna uyğun olaraq, mümkün təhlükə və riskləri nəzərə alan çevik xarici siyasət strategiyasını daha da inkişaf etdirməyə ehtiyac yaranır. Azərbaycan Prezidenti İlham Əliyev məsələnin bu aspektinə daim ciddi diqqət yetirir və ölkəmizin son vaxtlar beynəlxalq miqyasda əldə etdiyi böyük uğurlar çevik xarici siyasət kursunun inkişaf etdiyini təsdiqləyir.

Beləliklə, sistemli surətdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın xarici siyasətində yüksəliş başladı. Qısa müddətdə Heydər Əliyev bu prosesin dönməzliyini təmin etdi. Nəticədə, Azərbaycanın xarici siyasəti XXI əsrə qlobal miqyasda baş verən geosiyasi proseslərə, regional vəziyyətə və dünyanın enerji təhlükəsizliyi sisteminin qurulması dinamikasına çevik reaksiya verən sistem kimi daxil oldu. Bu sistem daim özünü yeniləşdirir, meydana çıxan gözlənilməz situasiyalara konstruktiv reaksiya verir. Azərbaycanın xarici siyasəti müasir dövr üçün xarakterik olan risk və böhranları nəzərə alan mexanizmlər formalaşdırır. Həmin mexanizmlər böhranlı situasiyalarda müxtəlif variantlardan ölkənin maraqlarına cavab verən daha səmərəli olanı seçməyə əsaslanır. Xarici siyasətin çevikliyi Azərbaycanı keçən müddət ərzində Cənubi Qafqazın lider dövləti səviyyəsinə yüksəldib. Ölkənin xarici siyasəti regional lider strategiyasına istiqamətləndiyindən bu mövqenin daha da möhkəmləndiriləcəyinə şübhə yoxdur.

Xarici siyasətdə ayrıca istiqamət kimi beynəlxalq və regional təşkilatlarla sıx əlaqələr yaratmaq, onlarla əməkdaşlıq etmək götürülür. BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, MDB, İƏT, ECO, QDİƏT, GUAM, NATO, Qoşulmama Hərəkatı və başqa təşkilatlarla hərtərəfli münasibətlərin qurulmasına böyük diqqət yetirilir. Bütövlükdə, qeyri-dövlət və qeyri-hökumət təşkilatlarının sosial-mədəni və siyasi həyatda rolunun artması tendensiyası gücləndiyindən xarici siyasətdə onların yeri və rolu daha da genişlənir. İslam Əməkdaşlıq Təşkilatı (İƏT) daxilində aparılan aktiv diplomatik və ideoloji iş sayəsində Xocalı soyqırımı bir neçə dövlətin parlamentində müzakirə edildi. Azərbaycan diplomatiyası bu addımla 57 ölkə ilə münasibətlərinə yeni müsbət

çalar gətirdi. Regional və qlobal miqyasda beynəlxalq təşkilatlarda aktiv diplomatik fəaliyyət qlobal geosiyasi mühitə sistemli şəkildə təsir etmək imkanı yaradır.

Azərbaycan MDB çərçivəsində də aktiv fəaliyyət göstərir. Ölkəmizin bu quruma daxil olması və orada aktiv iş aparması ilə Ermənistanın bir çox mənfur planlarının qarşısı alındı. Çünki Azərbaycanın razılığı olmadan MDB heç bir ciddi sənədi qəbul edə bilməz. Ölkəmizin təhlükəsizliyinin və ərazi bütövlüyünün təmini üçün bunun nə dərəcədə əhəmiyyətli olduğunu anlamaq çətin deyil. Azərbaycan MDB-nin bir çox sənədlərinə Ermənistan faktorunu nəzərə alaraq veto qoya bilir. Xüsusilə, təhlükəsizlik sisteminin yaradılması məsələsində ölkəmizin müstəqil mövqe nümayiş etdirməsi ermənilərin qərəzli siyasi niyyətlərini cilovlamağa imkan verir. Yeritdiyi çevik siyasət sayəsində Azərbaycan həm MDB-yə daxil olan dövlətlərlə sıx əməkdaşlıq edir, həm də özünə qarşı ola biləcək təhlükəli qərarları neytrallaşdırır.

Gətirdiyimiz misallar istər-istəməz belə bir sual doğurur: beynəlxalq təşkilatlar çərçivəsində xarici siyasət daha çox uğur qazanmağa imkan verirsə, ikitərəfli əlaqələrin qurulmasının əhəmiyyəti azalmır ki? Etiraf edək ki, qloballaşan dünyada bir neçə dövlətin daxil olduğu qurumla əməkdaşlıq daha perspektivli görünür. Lakin bütün hallarda ikitərəfli münasibətləri diplomatiyanın heç bir formasının əvəz edə bilməyəcəyini proqnozlaşdırmaq olar. Hazırda xarici siyasətin əsas istiqamətləri sırasında ikitərəfli əlaqələr əhəmiyyətli mövqeyini saxlamaqdadır. Bu zaman qarşılıqlı anlaşma prinsipi əsas götürülür. Bu əsasda başqaları ilə bərabərhüquqlu, qarşılıqlı faydalı münasibətlər qurmaq mümkün olur. Beynəlxalq təhlükəsizlik baxımından həmin prinsip əhəmiyyətlidir. Siyasi təhlükəsizliyin təmini bu prizmada aktual problem kimi qəbul edilir. Siyasi təhlükəsizlik dövlət quruculuğu məsələlərini müstəqil yerinə yetirmək üçün cəmiyyətin imkan və qabiliyyətlərini ifadə edir.

Belə şəraitdə dövlətin siyasi təhlükəsizliyi məsələsi çox sayda faktorun nəzərə alınmasını tələb edir. Həmin aspektdə xarici siyasətin siyasi təhlükəsizliklə beynəlxalq təhlükəsizliyin uyğunlaşdırılmasında çevik mexanizm kimi hədsiz əhəmiyyəti aydın görünür. Müstəqilliyini yaxın keçmişdə əldə etmiş dövlətlər üçün bu məsələ ikiqat vacibdir. Azərbaycan bütün bu şərtləri nəzərə alaraq xarici siyasətin əsas istiqamətlərini üç səviyyədə sistemləşdirmişdir. Birinci səviyyə Azərbaycanla coğrafi qonşu olan böyük dövlətləri əhatə edir. Burada konkret olaraq Rusiya, Türkiyə və İran nəzərdə tutulur. İkinci səviyyə Orta Asiya dövlətləri, Gürcüstan və Ermənistanla olan münasibətlərdən ibarətdir. Üçüncü səviyyə isə Avropa, ABŞ və Uzaq Şərq də daxil olmaqla Asiya və islam dövlətləri istiqamətində aparılan siyasətdən ibarətdir. Bunların fonunda dünyanın bütün dövlətləri ilə siyasi əlaqələr qurmaq xətti yeridilir. Beynəlxalq təşkilatlarla əməkdaşlıq istiqaməti hər üç səviyyəni əhatə edir - buraya məhəlli və qlobal miqyaslı təşkilatlar daxildir.

Xarici siyasətin prioritetlərinin düzgün müəyyənləşdirilməsi milli dövlətçiliyin inkişaf etdirilməsinin mühüm şərtlərindəndir. Təhlillər göstərir ki, Azərbaycan yalnız 1993-cü ilin ikinci yarısından xarici siyasətini sistemli, düşünülmüş və ardıcıl olaraq aparmağa nail olmuşdur. Ulu öndər Heydər Əliyev mükəmməl xarici siyasət kursu hazırlamışdır. Müstəqilliyimizin 22 ili ərzində toplanan təcrübə sübut edir ki, ölkəmizin xarici siyasət kursu böhranlı situasiyalarda belə, kifayət qədər səmərəlidir.

Son vaxtlar Avrasiya məkanında inteqrasiya modellərindən tez-tez danışırlar. Rusiya və Türkiyənin bununla bağlı yanaşmaları var. Avrasiyada hansı inteqrasiya modelinin reallaşacağından asılı olmayaraq, bu məkanda ölkələr arasında əlaqələrin inkişafı bir zərurətdir. Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu "Strateji dərinlik" kitabında yazır ki, Türkiyə Almaniya, Rusiya və ya Yaponiya kimi hərəkət etməlidir. Yəni, o, özünə yaxın olan regionlarda aktiv siyasət yeritməli, sonra dünya miqyasında söz sahibi olmaq imkanı qazanmalıdır. Bu şərtlər daxilində ərazi bütövlüyünün təmini çox əhəmiyyətlidir.

Xarici siyasəti dünya sisteminin yenidən qurulması prosesindən kənarda təsəvvür etmək mümkün deyil. Azərbaycan qlobal miqyasda gedən dəyişiklikləri öz üzərində hiss edir. Bu təsirlər regional səviyyədə özünü göstərən müxtəlif tendensiyalarla (siyasi, geosiyasi, iqtisadi, hərbi, ekoloji və mədəni xarakterli) uzlaşdırılmalıdır. Bu zaman əsas meyar xarici siyasətin prioritetləridir. Deyək ki, 2008-ci ilin avqustunda Rusiya ilə Gürcüstan arasında baş verən hadisələr regionda geosiyasi mənzərəyə ciddi təsir etdi. Azərbaycan bu hadisəyə ərazi bütövlüyünün təminini, münaqişələrin dinc yolla həllini və regional əməkdaşlığa yardım etmək zərurətini nəzərə alaraq reaksiya verdi. Bu, ölkəmizin Rusiya və Gürcüstanla əməkdaşlığına xələl gətirməyən bir mövqe idi. Eyni zamanda, Azərbaycan xarici siyasətinin prioritetlərini gözləyərək hərəkət etdi. Ona görə də, Prezident İlham Əliyevin həmin mərhələdə tutduğu mövqeyini beynəlxalq aləm yüksək qiymətləndirdi.

Azərbaycanın mürəkkəb bir regionda xarici siyasət sahəsində böyük uğurlar qazanması həqiqətən, zirvəyə yüksəliş deməkdir.

Bu yolda aşırımlardan inamla keçən, qarşıya çıxan maneələri qorxmadan dəf edən gənc müstəqil dövlət indi regionun lideridir. Dövlət başçısının rəhbərliyi ilə ölkəmizin xarici siyasətinin prioritetləri qətiyyət və inamla

həyata keçirilir. Təcrübə göstərir ki, Azərbaycanın xarici siyasət kursu region səviyyəsində pozitiv geosiyasi dəyişiklikləri stimullaşdırır. Azərbaycan Cənubi Qafqazın lider dövləti olaraq yalnız əməkdaşlıq və inteqrasiya istiqamətində fəaliyyət göstərir. Dövlətimiz yeni beynəlxalq enerji layihələri, iqtisadi əməkdaşlıq proqramları və mədəniyyətlərarası dialoqa xidmət edən tədbirlər həyata keçirdikcə, bəzi qüvvələrin təxribatçı hərəkətləri artır. Cəbhə xəttində atəşkəsi pozurlar, bəzi media orqanlarında ölkəmizə qarşı qərəzli yazılar dərc edirlər, müxtəlif beynəlxalq dairələrdən təzyiqlər etməyə çalışırlar. Bütün bunlar mahiyyətcə sürətlə inkişaf edən Azərbaycana qısqanclığın nümayişidir. Lakin Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan artıq keçən əsrin 90-cı illərinin ölkəsi deyil - o, güclü, sülhsevər və zəngindir! Azərbaycan Cənubi Qafqazın aparıcı dövləti olaraq bundan sonra da üzərinə düşən missiyanı yerinə yetirəcəkdir!

Məqaləni İsrail Prezidenti Şimon Peresin fikirləri ilə bitirmək istəyirəm. "Azərbaycan qeyri-adi ölkədir və olduğum digər ölkələrdən fərqlənir. Mən Azərbaycanda səfərdə olmuşam. Bu ölkə məndə xoş təəssüratlar yaradıb. Heydər Əliyev Fondunda oldum və həqiqətən, anladım ki, o, (Heydər Əliyev), gözəl insan olub, böyük istedada, qeyri-adi zəkaya malik olub. İlham Əliyevlə isə ingilis dilində danışırdıq. O, ingilis dilini mükəmməl bilir. Hər iki Əliyevlər belə qərar veriblər ki, Azərbaycan öz yolu ilə inkişaf etməlidir, taleyini, gələcəyini özü həll etməlidir. Bu gələcək üçbucaqlı daş üzərində dayanır: birincisi - ölkənin qədim mədəniyyətidir, ikincisi - zəngin yeraltı sərvətidir, üçüncü üçbucaqlı daş isə - elmin inkişafı, elmin yeni istiqamətlərinin inkişafıdır. Bu ölkə öz ənənələrini qoruyub saxlamaq istəyir və eləcə də müasir həyatın bir hissəsinə çevrilməyi arzulayır. Məncə, bu çox müdrikçəsinə həyata keçirilir. Əslində, bu gün bu və ya digər ölkənin nə coğrafi ölçüləri nə də əhalisinin sayı mühüm əhəmiyyət daşıyır. Bundan əlavə, dünya daim dəyişir. Mən Prezident Əliyevi çox yüksək dəyərləndirirəm. O, çox mədəni bir insandır: müstəqildir, liberaldır. O, qorxan insanlardan deyil. O, asanlıqla geri çəkilməz və o, Azərbaycanın böyük gələcəyinə ürəkdən inanır. Mənim kimi. Mən də bu ölkənin uğurlu gələcəyinə əminəm".

**“Azərbaycan”.-**2013.-24 aprel.-N 86.-S.3.

# TALEYİN ƏN BÖYÜK TÖHFƏSİ

**Vilayət Quliyev,**
Azərbaycan Respublikasının
Macarıstan Respublikasındakı
fövqəladə və səlahiyyətli səfiri

**Dağın ucalığı və əzəməti uzaqdan daha aydın görünür.**

**Böyük şəxsiyyətlər də belədir. Yalnız aradan zaman keçəndən sonra onların möhtəşəmliyi, xalqın tarixində və insanların ürəyində qoyduqları izlərin əbədiliyi, eləcə də həyatdan köçmələri ilə bağlı yaranmış itkinin ağırlığı daha bariz şəkildə meydana çıxır. Anadan olmasının 90 illiyini Azərbaycan xalqının, eləcə də dünyanın müxtəlif ölkələrində on minlərlə insanın ehtiramla qeyd etdikləri böyük dövlət adamı və təkrarsız siyasətçi Heydər Əliyev sağlığında da kifayət qədər nüfuz və şöhrətə malik idi. İnsanların ürəyində özünə yer tapmışdı. Fövqəldövlətin - keçmiş Sovet İttifaqının liderlərindən biri kimi dünya miqyasında tanınırdı. Müstəqil Azərbaycanın dövlət başçısı kimi böyük uğurlara imza atmışdı. Bir sözlə, tarixdə öz yerini tutmuşdu. Vəfatından on il ötəndən sonra isə onun şəxsiyyəti və irsi, planları və niyyətləri bizə daha çox aydın olur. Zaman baxımından Heydər Əliyevdən nə qədər uzaqlaşırıqsa, o, gözlərimiz önündə bir o qədər böyüyür. Aradan ötən hər il bizə Heydər Əliyev fenomenini dərk etməyə, onun gördüyü işlərin miqyasını və zəngin irsinin dəyərini dərindən anlamağa imkan verir**.

* * *

Siyasi lider, dövlət xadimi və bir insan kimi Heydər Əliyevi yaxından tanımaq, heç şübhəsiz, ailə üzvlərini və doğmalarını çıxmaq şərti ilə ilk növbədə onun rəhbərliyi altında çalışanlara, onunla mütəmadi təmas qura bilənlərə nəsib olmuşdur. Heç gözləmədiyim halda mən də belə seçilmişlərin sırasına düşdüm.

1999-cu il oktyabrın 26-da Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə xarici işlər naziri vəzifəsinə təyin olundum. Təbii ki, bu təyinat bütün cəmiyyət üçün gözlənilməz oldu. Doğrudur, o zaman Milli Məclisin üzvü idim. Müəyyən ictimai fəaliyyətim vardı. Cəmiyyətdə az-çox tanınırdım. Lakin istənilən halda hansı bucaq altından baxılırsa-baxılsın, birdən-birə çiyinlərimə düşən yükün ağırlığı həddindən çox ağır idi.

Əvəzində isə hər ikisi Heydər Əliyevin adı ilə bağlı iki böyük üstünlük vardı: Birincisi, təyinatın bütün gözlənilməzliyinə baxmayaraq cəmiyyətin mütləq əksəriyyəti düşünürdü ki, əgər Heydər Əliyev belə seçim etmişdirsə, deməli müəyyən qənaətlərə əsaslanmışdır. İkincisi isə, birbaşa Heydər Əliyev kimi böyü dövlət adamının rəhbərliyi altında çalışacaqdım. Onun komandasının üzvü sayılacaqdım. Ümummilli liderin ölkəmizin və xalqımızın gələcəyi naminə həyata keçirdiyi işlərdə mənim də hansısa kiçik bir payım olacaqdı! Məhz bu amillərdən çıxış edərək yanaşdıqda üzərimə son dərəcə çətin vəzifə qoyulmasından asılı olmayaraq Prezidentə minnətdar idim.

Minnətdarlıq öz yerində. Problemlər də yetərincə idi. Dağlıq Qarabağ kimi qanayan yarası olan bir məmləkətdə nəinki yüksək vəzifəli şəxs, sıravi vətəndaş da özünü daim ağır bir yükün altında hiss etməlidir. Təbii ki, idarəçilik sahəsində təcrübəmin kifayət qədər olmaması nəticəsində ilk vaxtlar ciddi çətinliklərlə qarşılaşırdım. Bəzən səhvlərə də yol verirdim. Belə məqamlarda Prezidentin nə qədər böyük səbir və təmkin, ən başlıcası isə ağsaqqallıq və xeyirxahlıq göstərdiyinin şahidi olurdum.

"Heydər Əliyev idarəçilik məktəbi" heç şübhəsiz, indiyə qədər keçdiyim "həyat universitetlərinin" ən mürəkkəbi və eyni dərəcədə də ən şərəflisidir. Bu böyük insanla gündəlik təmas, fikir mübadiləsi, eşitdiyim müdrik məsləhətlər bir çox məsələlərə münasibətimi kökündən dəyişdirdi. Həm o zaman, həm də indi dörd ildən çox rəhbərliyi altında işlədiyim Prezident haqqında haqsız, əsassız iradları, iddiaları eşidəndə daxilimdə baş qaldıran qəzəbi boğa bilmirəm. Təəssüf ki, öz fantaziyalarında hansısa mifik, gerçəklikdən uzaq, öz xülyalarının tələblərinə cavab verən bir obraz yaradan və tanımadan, bilmədən onu Heydər Əliyev kimi qələmə vermək niyyətinə düşənləri bir yerə yığıb onlara əsl həqiqəti anlatmaq, onları səhvləri inandırmaq qeyri-mümkündür. Kor işığı görə bilmədiyi kimi siyasi müxaliflik havasından başları gicəllənmiş belə adamlar da Heydər Əliyevin böyük insanlığını, nəcibliyini, xeyirxahlığını, daxilində yaşatdığı nuru və işığı, onun sonsuz Azərbaycan sevgisini görə bilmirlər.

Əslində, mənim mənsub olduğum nəsil həyatda qazandığı bir çox uğurlar üçün Heydər Əliyevə, dəqiq desəm, 1969-cu ildən sonra onun Azərbaycanda uzaqgörənliklə formalaşdırdığı mühitə borclu idi. Ötən yüzilliyin 90-cı illərində sovet cəmiyyətində daha çox boş şüarçılıq və kampaniya şəklində meydana çıxan "yenidənqurma" öz həqiqi miqyas və mahiyyəti ilə ilk dəfə Heydər Əliyevin hakimiyyətə gəlişi ilə bizim

respublikamızda başlanmışdı. Onun ardıcıllıqla həyata keçirdiyi qətiyyətli tədbirlər nəticəsində bir sıra neqativ hallara son qoyulmuşdu. Böyük quruculuq işləri başlanmışdı. İqtisadi tərəqqi ilə bir sırada Azərbaycan həm də o dövrə qədər misli bərabəri görünməmiş mədəni və mənəvi intibah dövrünə qədəm qoymuşdu. Nizami Gəncəvinin "Qoy ədalət zəfər çalsın!" sözlərini mübarizəsinin devizinə çevirən ölkə rəhbəri həqiqətən də insanların həyatını asanlaşdıran bir sıra köklü dəyişikliklərə imza atmışdı. Həmyaşıdım olan minlərlə gənc kimi mən də orta məktəbi bitirən kimi heç bir çətinlik çəkmədən qəbul imtahanlarını verərək universitet tələbəsi olmuşdum.

Bir sözlə, hələ sovet rejiminin arasıkəsilməz nəzarəti altında Azərbaycanın təkcə bu gününü deyil, həm də gələcəyini düşünən, bəlkə də yalnız özünə bəlli bir intuisiya, bir sövq-təbii ilə ölkəni qarşıdan gələn müstəqilliyə hazırlayan Heydər Əliyevə inanırdım. 1993-cü ildə Azərbaycanın yenicə qazandığı dövlət müstəqilliyinin taleyi həll olunanda heç bir vəzifə tutmasam da, bir yaradıcı ziyalı, öz məsuliyyətini dərk edən vətəndaş kimi onun tərəfində idim...

* * *

Zəmanəmizin bu böyük insanı ilə şəxsi tanışlığım 1992-ci il sentyabrın 27-də olmuşdu. Həmin dövrdə Azərbaycanda həm iqtisadi, həm də mənəvi cəhətdən çox ağır dövr yaşandığından Türkiyənin Ərzurum Atatürk universitetinin dəvəti ilə işləmək üçün bir illiyinə bu ölkəyə gedirdim. İki ölkəni birləşdirən, Naxçıvanı çətin blokada şəraitindən çıxarmaqda böyük rol oynayan "Ümid körpüsü" Heydər Əliyevin və Prezident Süleyman Dəmirəlin birgə səyi ilə yenicə tikilib istifadəyə verilmişdi. Naxçıvanın bir neçə yüz kilometrliyində yerləşən Ərzuruma bu yolla getmək niyyətində idim.

Həmin dövrdə körpüdən keçmək üçün bəlli rüsum ödəmək lazım idi. Lakin Heydər Əliyev bu məsələdə də təbiətinə xas olan diqqətcillik və qayğıkeşlik nümayiş etdirmişdi: qonşu ölkəyə elmi ezamiyyətə gedən akademiya işçiləri, universitet müəllimləri rüsum ödənişindən azad olunmuşdu. Bu icazə Naxçıvan Muxtar Respublikasının Nazirlər Soveti tərəfindən rəsmiləşdirilirdi.

Məni aeroportda qarşılayan dostum, indi Naxçıvan Dövlət Universitetinin rektoru, millət vəkili, akademik İsa Həbibbəyli ilə birlikdə Nazirlər Sovetinə getdik. Lakin o zamankı baş nazir Şəmsəddin Xanbabayev İranda səfərdə olduğundan Bakıdan, Elmlər Akademiyasından gətirdiyim məktuba razılıq vizası qoyulması ilə bağlı problem yarandı.

Gözləmədiyim halda İsa məsələnin həlli üçün Ali Məclisə, Heydər Əliyevin yanına getməyi təklif etdi. Belə xırda bir işdən ötrü başı onsuz da blokada şəraitindəki Naxçıvanın çoxsaylı problemlərinə qarışmış Heydər Əliyevi narahat etməyi ağlıma da sığışdırmırdım. Amma İsa onun alimlərə, ziyalılara son dərəcə diqqətli münasibəti barəsində bəziləri mənə də yaxşı məlum olan çoxlu misallar gətirərək təkid edirdi. Digər tərəfdən əvvəllər ya televiziya ekranlarında, ya da müxtəlif tədbirlərdə uzaqdan-uzağa gördüyüm Heydər Əliyevlə bir neçə dəqiqəliyinə də olsa üzbəsurət görüşmək, həmsöhbət olmaq mənim özüm üçün də son dərəcə maraqlı idi.

Naxçıvan Ali Məclisinə getdik və təəccübümə rəğmən bir neçə dəqiqədən sonra sədr tərəfindən qəbul edildik. Ən təəccüblüsü isə Heydər Əliyevin məni, daha doğrusu imzamı tanıması oldu. Həmin vaxta qədər də onun fenomenal yaddaşı haqqında çox eşitmişdim. Lakin heç bir halda bu yaddaşın küncündə özümə - ədəbiyyat, yaxud siyasət Olimpində elə də ciddi yer tutmayan nisbətən gənc alimə də yer tapıldığını ağlıma gətirə bilməzdim.

Nəhayət, üçüncü təəccüblü məqam: Ali Məclis sədrinin kabinetində yalnız bir neçə dəqiqə qalacağımızı düşündüyüm halda söhbətimiz iki saatdan çox çəkdi. Heydər Əliyev ilk dəqiqələrdən yalnız onun özünə məxsus olan məharətlə elə bir atmosfer yaratdı ki, biz on dörd il Azərbaycana, beş il isə dünyanın altıda birini tutan nəhəng ölkəyə rəhbərlik etmiş, sovet elitasının "ölməzləri" - Siyasi Büro üzvləri sırasında yer almış dünya miqyaslı bir siyasətçi və dövlət xadimi ilə deyil, sanki yaxşı tanıdığımız bir şəxslə söhbətləşirdik.

Həmin gecə zülmətə qərq olmuş Naxçıvanda, İsan müəllimin universitet şəhərciyindəki qazsız, işıqsız mənzilində uzun müddət yaddaşlarımıza əbədilik hopmuş bu görüşün təəssüratını bölüşdük. Heç birimizin hansısa siyasi, yaxud vəzifə iddialarımız yox idi. Lakin bir həqiqəti başa düşürdük: Bu ağır günlərdə Azərbaycanın Heydər Əliyevə böyük ehtiyacı var. Yalnız o, ümumi xaos və anarxiya şəraitində hər an qərq ola biləcək Azərbaycan dövlətçiliyi gəmisini fırtına və tufanlardan qurtara bilər, qələbəyə aparan düzgün yol seçə bilərdi.

* * *

Sovet dövründə Heydər Əliyev həm Azərbaycanda, həm də Moskvada əsasən partiya-təsərrüfat rəhbərliyini həyata keçirmişdi. Doğrudur, müxtəlif vaxtlarda o, respublikamıza və Sovet İttifaqına gələn ayrı-ayrı əcnəbi nümayəndə heyətlərini qəbul etmişdi. Habelə sovet nümayəndə heyətinin başçısı kimi dünyanın müxtəlif ölkələrinə səfərə çıxmışdı. Lakin fəaliyyətinin bu sahəsi müəyyən dərəcədə pərdə arxasında qaldığından onun diplomatiya və xarici siyasət sahəsindəki qeyri-adi bacarığı yalnız müstəqil Azərbaycan Respublikasına rəhbərlik etməyə başladığı dövrdə ortaya çıxmışdı. Bütün digər fəaliyyət sahələri kimi bu sahədə də Heydər Əliyev sözün həqiqi mənasında as idi.

O, son dərəcə mürəkkəb şəraitdə yalnız Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərini müəyyənləşdirmirdi, eyni zamanda həmin siyasəti həyata keçirirdi. Bu mənada Heydər Əliyevin rəhbərliyi altında işləyən xarici işlər nazirlərinin həm bir sıra üstünlükləri, həm də çətinlikləri vardı. Üstünlük ondan ibarət idi ki, Heydər Əliyev, necə deyərlər, həmişə atəşi öz üzərinə çəkirdi, ən çətin məsələlərin həllini öz üzərinə götürürdü. Çətinlik isə tələbkarlığın son dərəcə yüksək olmasında, hər bir məsələdə onun meyarlarına, ölçülərinə cavab verməkdə idi.

Geniş yayılmış ifadədə də deyildiyi kimi, diplomatiya mümkün olanı həyata keçirmək sənətidir. Mübaliğəsiz deyə bilərəm ki, Heydər Əliyev bəzən böyük vətən sevgisi, inandırmaq qabiliyyəti, nitq məharəti, ürəyinin odu və ehtirası ilə mümkün olmayanın da gerçəkləşməsinə nail olurdu. Təbii ki, onun yalnız daxili siyasətinin deyil, xarici siyasətinin mərkəzində də ölkəmizin mənafe və maraqları, Azərbaycan insanının bu günü və gələcəyi dayanırdı. Hər dəfə öz həllini tapmamış Dağlıq Qarabağ münaqişəsindən, itirilmiş torpaqlarımızdan, suverenlik haqqımızın tam şəkildə həyata keçirilməməsindən söhbət düşəndə Prezidentin dövlət başçısı kimi necə iztirab keçirdiyini sezməmək mümkün deyildi.

Azərbaycanla, onun dövlətçiliyi, tarixi, mədəniyyəti ilə bağlı məsələlərdə Heydər Əliyev dönməz prinsipiallıq nümayiş etdirirdi. Belə məsələlərdə onun üçün ikinci dərəcəli, qeyri-vacib sayıla biləcək heç bir şey yox idi. Bəlkə də başqalarının əhəmiyyət verməyəcəyi, üzərindən sükutla keçə biləcəyi ən xırda detallar da gözündən, nəzərindən qaçmırdı. Belə detallar isə protokol məsələlərindən tutmuş siyasi müzakirələrə qədər çox geniş bir dairəni əhatə edirdi.

Ölkəmizə, milli müstəqilliyimizə, dövlət atributlarımıza göstərilən ən kiçik diqqətsizlik də Heydər Əliyevin diqqətindən yayınmır və onun kəskin, qətiyyətli etirazı ilə qarşılanırdı. Belə epizodlardan biri 2002-ci ildə İranda olmuşdu.

İran səfərinin sonuncu günü ölkənin ali dini lideri Əli Xameneyi ilə ilə Heydər Əliyevin görüşü nəzərdə tutulmuşdu. Biz dini rəhbərin kiçik, sadə, lakin son dərəcə ciddi qorunan iqamətgahına gələndə artıq prezident Xatəmi, xarici işlər naziri Xərrazi, Xameneyinin xarici siyasət məsələləri üzrə müşaviri Vilayəti burada idilər. Hamısı İranda qəbul olunmuş qayda üzrə ayaqqabılarını soyunmuşdu. Bizim üçün istisnaya yol verdilər.

Rusiyanın İran səfiri, böyük dramaturq A.S.Qriboyedovun faciəli taleyini xatırladım. Fətəli şahın hüzuruna yalnız saray əyan-əşrəfi deyil, diplomatlar da corabla gəlməli idilər. Avropa diplomatları İran protokolunun bu qəribə qaydasını öz aralarında "corab diplomatiyası" adlandırırdılar. Qalib rus imperiyasını təmsil edən Qriboyedov həmin qaydanı pozmuşdu. Saraya uzunboğaz süvari çəkmələri ilə gəlmişdi. Üstəlik, şahın qarşısında bardaş qurub oturmaq istəməmiş, kreslo tələb etmişdi. Sarayın rus diplomatı ilə düşmənçiliyi belə başlanmışdı. Ayaqqabısını çıxarmaq istəməyən səfir başını itirməli olmuşdu...

Ali dini lider Heydər Əliyevi danışıqlar keçiriləcək zalın qarşısında qarşıladı. İki əlli görüşdü. Azərbaycan dilində sözə başlayıb hal-əhval tutdu. Həm biz, həm də İran nümayəndə heyətinin üzvləri sakitcə dayanıb söhbətə qulaq asırdıq.

Heydər Əliyev özünəməxsus ərkyanalıqla Xameneyinin doğulduğu yerə - Təbriz yaxınlığındakı məşhur Xamnə kəndinə işarə edərək:

- Xamnədə nə var, nə yox? - deyə soruşdu.

- Sən Xamnəni də bilirsən? - İran lideri təəccübünü gizlətmədi.

- Əlbəttə. Xamnə bizim Azərbaycanda da məşhurdur. Həm də bu kənd təkcə sizin vətəniniz kimi tanınmır. Azərbaycanın çox məşhur şəxsiyyətlərindən biri olan Mirzə Fətəli Axundzadə də sizinlə eyni kənddə doğulub. Yəqin, Axundzadənin adını eşitməmiş olmazsınız.

- Eşitmişəm, - deyə Xameneyi həvəssiz cavab verdi. Şübhəsiz, hələ 150 il bundan əvvəl öz əsərlərində İran mühitini kəskin tənqid edən Mirzə Fətəlinin adı bu ölkədə tarixin təkərini yenidən geriyə çevirənlərin xoşuna gələ bilməzdi.

İki liderin arasındakı şəxsi xarakterli söhbət daha bir neçə dəqiqə çəkdi. Sonra heyətlər masa arxasında yerlərini tutdular. Xameneyi Azərbaycan Prezidentini fars dilində salamladı, onun səfərinin tarixi əhəmiyyət daşıdığını dedi. Təbii ki, farsca İranın dövlət dili olduğundan ali dini rəhbərin bu dildə danışması anlaşılan idi.

Lakin gözləmədiyimiz halda Xameneyi nitqinə ara verən kimi yanında əyləşmiş tərcüməçi onun dediklərini çox naşı, qeyri-dəqiq və savadsız şəkildə ruscaya çevirməyə başladı.

Heydər Əliyev "Podojdite!" -deyə elə ilk cümlədən sonra sərt şəkildə onu dayandırdı. Sonra üzünü Xameyniyə tutub dedi.

- Ağayi Xameyni! İki dəqiqə bundan əvvəl biz burada öz ana dilimizdə danışırdıq və biri-birimizi də yaxşıca anlayırdıq. Mən başa düşürəm ki, bura İrandır, siz də bu dövlətin ali dini rəhbərisiniz. Ona görə də rəsmi danışıqlarınızı fars dilində aparmalısınız. Bunlar aydındır. Amma başa düşmürəm ki, nə üçün tərcümə rus dilinə edilir?

- Bəs mən elə bilirəm ki, sizin dövlətin dili rus dilidir... - deyə Xameneyi vəziyyətdən çıxmağa çalışdı.

- Ay kişi, - deyə Xameneyinin özünü sadəlövhlüyə vurmasından əsəbiləşən Heydər Əliyev kəskin şəkildə sözünə davam etdi. - Azərbaycan dili sovet hakimiyyəti dövründə də bizim ölkəmizin dövlət dili idi. Hətta o dövrdə bizim Konstitusiyada ayrıca maddə ilə dövlətimizin dilinin Azərbaycan dili olduğu göstərilmişdi. Moskvanın bütün təzyiqlərinə baxmayaraq dilimizi qorumuşuq, saxlamışıq, zənginləşdirmişik. Məktəblərimiz, institutlarımız bu dildə olub, idarələrimiz bu dildə işləyib, kitablarımız, qəzetlərimiz bu dildə çıxıb. Müstəqillik qazanandan sonra isə biz beynəlxalq miqyasda da danışıqları öz dilimizdə aparırıq. Haradan sizin ağlınıza gəlib ki, Moskvanın asılılığından şəhid qanları bahasına qurtaran Azərbaycan bu gün özünün min illik bir tarixə malik doğma dilini bir kənara qoyub rus dilindən istifadə edəcək? Axı Azərbaycanla İran qonşu ölkələrdir. İnsanlarımız sıx münasibət saxlayır. Siz, sizin nazirliyiniz, protokolunuz belə sadə həqiqətlərdən xəbərdar olmalıdır. Əgər bilmək istəsəniz, mən rus dilinə də çox dərindən bələdəm. Ancaq Azərbaycan dövlətinin Prezidenti kimi yalnız öz dilimdə danışmağı üstün tuturam.

Heydər Əliyevin belə kəskin və qətiyyətli etirazından sonra iranlılar özlərini itirmişdilər. Nə edəcəklərini bilmirdilər. Xarici İşlər Nazirliyindən təcili tərcüməçi çağırılmasını müzakirə edirdilər.

- Yaxşı, bu dəfə bizim səfir tərcümə edər, - deyə Heydər Əliyev qarşı tərəfin pərtliyinə son qoydu. Sonra isə yüngülvari zarafat etdi: - Amma fikirləşirəm ki, elə Azərbaycan dilində danışsaq da buradakılar hamısı başa düşərdi.

Görüş bitəndən sonra qapı ağzında Xameneyi ilə vidalaşan Heydər Əliyev yenə də qarşı tərəfin Azərbaycan dilinə saygısızlığı məsələsinin üzərinə qayıtdı.

-Ağayi Xameneyi, - dedi. - Burada çox məsələlərdən danışdıq. İndi bilmirəm, hansı yerinə yetəcək, hansı unudulacaq. Ancaq əminəm ki, bir məsələ həmişə sizin yadınızda qalacaq - xatırlayacaqsınız ki, Azərbaycan Respublikasının dövlət dili rus dili deyil, Azərbaycan dilidir.

Pərtliyini gizlədə bilməyən ali dini lider sadəcə iki dəfə "Əstəğfürullah!" - deməklə kifayətləndi.

* * *

Heydər Əliyev dünya miqyasına çıxan, dünya liderləri və beynəlxalq qurumların başçıları ilə Azərbaycanın problemləri ətrafında bərabər səviyyəli müzakirələr aparan, zərurət duyulduğu məqamlarda öz iradəsini diqtə etməyi bacaran (məşhur Lissabon sammitində olduğu kimi), mühüm əməkdaşlıq sənədləri imzalayan ilk milli lider idi. Xarici səfərlər zamanı onun beynəlxalq cameədə necə hörmət və ehtirama layiq görüldüyünü dəfələrlə müşahidə etmişəm.

2000-ci ildə Nyu-Yorkda BMT-nin yaradılmasının 55 illiyi qeyd olunurdu. Yubiley sammitinə dünyanın 150-dən çox ölkəsinin dövlət və hökumət başçısı gəlmişdi. BMT-nin böyük zalı müxtəlif milli geyimlərin nümayiş etdirildiyi etnoqrafik sərgini xatırladırdı. Hər dəfə iclas zalına gedəndə yol boyu rastlaşdığımız nümayəndə heyətlərinin çoxu Heydər Əliyevi tanıyırdı. Bəziləri ayaq saxlayıb özlərini təqdim edir, ayaqüstü söhbət aparırdılar.

Bir dəfə bizim üçün ayrılan yerin yaxınlığında dayanıb iclasın başlanmasını gözləyirdik. Birdən hər tərəfdə canlanma yarandı. Uzun illər ABŞ imperializminə qarşı mübarizənin simvolu kimi tanınan Kuba dövlət başçısı Fidel Kastro zala daxil oldu. Hər tərəfdən ona əllər uzanırdı. Öz masasına yaxınlaşan Kastronun nəzərləri bizim Prezidentə sataşdı. "O, sinyor Aliev, Moskva, Sovyetiko" - deyə köhnə dost kimi onu qucaqladı. Təəssüf ki, yaxınlıqda tərcüməçi olmadığından söhbəti davam etdirmək mümkün olmadı. Amma dünyanın ən tanınmış liderlərindən birinin heyranlıqla dolu bu münasibəti tərcüməçisiz də çox şey deyirdi.

Keçmiş Sovet İttifaqı, habelə Qərbi və Şərqi Avropa liderlərinin hansıları ilə Heydər Əliyevi daha sıx tellər bağlayırdı? Bir neçə illik müşahidələrim əsasında bu suala cavab verə bilərəm. Təbii ki, ilk növbədə Türkiyə Cümhuriyyətinin doqquzuncu prezidenti Süleyman Dəmirəlin, Rusiya prezidenti Vladimir Putinin, Fransa, Gürcüstan və Ukraynanın keçmiş prezidentləri Jak Şirak, Eduard Şevardnadze və Leonid Kuçmanın adlarını çəkə bilərəm. Əlbəttə, bu siyahı tam sayıla bilməz. Çünki bir sıra digər ölkələrin dövlət və hökumət

başçılarının da Heydər Əliyevə son dərəcə böyük ehtiramla yanaşdıqlarını, onun şəxsində dövrümüzün diqqətəlayiq siyasətçilərindən birini gördüklərini dəfələrlə müşahidə etmişəm. Onların sırasına ABŞ-nın keçmiş prezidentləri Bill Klintonu, ata və oğul Buşu, keçmiş dövlət katibləri Madelin Olbrayt, Kolin Pauell və Kondoliza Raysı, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevi, İranın keçmiş prezidenti Məhəmməd Xatəmini, Polşanın keçmiş prezidenti Aleksandr Kvasnevskini, Səudiyyə Ərəbistanının mərhum kralı Fəhdi, Rusiya Federasiyasının keçmiş baş nazirləri Vladimir Çernomırdini və Yevgeni Primakovu, İtaliyanın keçmiş baş naziri Ronamo Pridini, İsrailin baş naziri Beniamin Netenyahunu, Türkiyənin mərhum baş naziri Bülənd Eceviti, Pakistanın mərhum baş naziri xanım Benazir Bhuttonu və digərlərini daxil etmək mümkümdür.

Heydər Əliyevlə Dəmirəlin münasibətləri son dərəcə səmimi idi, özlərinin də vurğuladıqları kimi dostluq və qardaşlıq səviyyəsinə yüksəlmişdi. Bəzən mənə elə gəlirdi ki, bu iki siyasət ustası bir-birlərini sözsüz də başa düşürlər. Onlar Türkiyə və Azərbaycanın maraqlarını qarşılıqlı şəkildə qorumaq baxımından çox gözəl bir tandem yaratmışdılar və Dəmirəlin hakimiyyətdə olduğu dövrdə qarşılıqlı münasibətlərdə hər hansı bir problem yaşanmamışdı.

Süleyman Dəmirəl xəstəliyi səbəbindən Heydər Əliyevin dəfn mərasiminə gələ bilməmişdi. Çoxillik dostu qarşısında son borcunu yalnız 2004-cü ilin fevralında yerinə yetirdi. Onun Bakıda müşaiyət olunması mənə tapşırılmışdı. Hava limanından birbaşa Fəxri xiyabana getdik. O, məşhur şlyapasını əlində tutaraq ümummilli liderin təzə məzarı qarşısında xeyli dayandı. Deyəsən dua edirdi. Sonra sanki öz-özü ilə danışırmış kimi dedi: “Rahmetlikle 1967-den irtibatımız vardı. Onu gerçekden de bir kardeş kibi seviyordum. Haydar Aliyevin vefati son senelerde kardeş Azerbaycanın verdiyi en büyük kayıpdır. Bu kayıpın yanqısını uzun yıllar hissedeceksiniz. Azerbaycanın başı sağ olsun. Türkiyenin başı saq olsun”. Bu sözləri söyləyərkən Türkiyənin doqquzuncu prezidentinin gözlərinin yaşarması heç kimin diqqətindən yayınmadı.

Vladimir Putin həm təhlükəsizlik orqanlarının veteranı, həm də keçmiş Sovet İttifaqının liderlərindən biri və müstəqil Azərbaycanın dövlət başçısı kimi Heydər Əliyevi yüksək qiymətləndirirdi. Superdövlətin başçısı olsa da, Heydər Əliyevə münasibətdə özünü “böyük qardaş” kimi yox, əgər belə demək mümkünsə, “oğul” kimi aparırdı. MDB sammitlərində və digər beynəlxalq tədbirlərdə bu ehtiramlı münasibəti daim nümayiş etdirirdi.

Azərbaycan Prezidenti də özünəməxsus uzaqgörənlik və siyasi fəhmlə “Putin fenomenini” birincilər sırasında qiymətləndirmişdi. Onların ilk görüşü 2000-ci ilin yanvarında Kiyevdə, Putin RF prezidentinin səlahiyyətlərini icra etməyə başlayandan təxminən bir ay sonra olmuşdu. Əvvəlcə yarım saatlıq protokol görüşü nəzərdə tutulurdu. Söhbətin yerli vaxtla axşam saat 23-də başlaması onun çox da uzun çəkməyəcəyini düşünməyə əsas verirdi. Lakin təkbətək söhbət təxminən iki saata yaxın davam etdi. İki ölkə arasındakı münasibətlərdə həmin dövrə qədər müəmmalı qalan məqamlara aydınlıq gətirildi.

Nəticədə 2001-ci ilin yanvarında Putin Azərbaycana gəldi. Azərbaycan dövlət müstəqilliyi qazanandan sonra bu, Rusiya Prezidentinin ölkəmizə ilk səfəri idi. Başqa bir diqqəti çəkən cəhət də vardı. Rusiyanın dövlət başçısı yeni minillikdə özünün ilk xarici səfər marşrutu kimi Azərbaycanı seçmişdi. İki ölkə arasındakı münasibətlərdə Yeltsin dövrünün ağır mirasının tezliklə aradan qaldırılması, iqtisadi əməkdaşlığın böyük vüsət alması hər şeydən öncə Heydər Əliyevin pozitiv mövqeyi ilə bağlı idi.

Heydər Əliyevə böyük simpatiya ilə yanaşan, bəzi məsələlərdə ondan bilgi almaq və öyrənmək istədiyini gizlətməyən dünya liderləri arasında Jak Şirakın adını çəkmək istərdim. Yelisey sarayında onların hər dəfə protokolun müəyyən etdiyi çərçivədən kənara çıxan iki söhbətinin şahidi olmuşam və bu söhbətlər zamanı Şirakın Azərbaycan liderinə böyük ehtiramını görmüşəm.

Fransanın keçmiş dövlət başçısı Dağlıq Qarabağ düyününün açılmasına töhfə vermək istəyirdi. Bu istəyində nə dərəcədə səmimi təsir bağışladığını deyə bilmərəm. Amma ATƏT-nın Minsk qrupunda təmsil olunan ölkənin prezidenti kimi Azərbaycan və Ermənistan prezidentlərini bir araya gətirərkən müəyyən mənada həm də “qızıl ortanı” tapmağa cəhd göstərdiyi göz önündə idi. Heydər Əliyevin 1994-cü ildən başlayan Fransa siyasətindən əsas məqsəd isə ənənəvi şəkildə ermənipərəst kimi tanınan bu ölkəni müəyyən dərəcədə neytrallaşdırmaq, fransız siyasi elitasını Azərbaycan həqiqətlərindən də obyektivlik və ədalət meyarı ilə söz açmağa vadar etmək idi. Xristian həmrəyliyinin və güclü erməni lobbisinin yaratdığı bütün maneələrə baxmayaraq Heydər Əliyev dəf edilməz maneə kimi görünən anlaşılmazlıq buzunu sındıra bildi.

2000-ci ilin aprelində Tiflisə rəsmi səfər zamanı Gürcüstan dövlət başçısının dilindən eşitdiyimiz bəzi etiraflar Heydər Əliyevin bir insan və şəxsiyyət kimi nə qədər yüksəkdə dayandığını bir daha sübuta yetirdi. Cənubi Qafqazın iki lideri arasındakı münasibətlərin heç də həmişə aydın və buludsuz olmadığı məlumdur. Qorbaçov Siyasi Büroda Heydər Əliyevə qarşı haqsızlıq və ədalətsizliyə yol verəndə başqaları kimi Şevardnadze də susmuşdu. Müəyyən mənada hətta bu davranış tərzini də başa düşmək mümkündür. Çünki hər hansı etiraz onun özünün də siyasi karyerasını təhlükə altında qoya bilərdi. Lakin məsələnin başqa tərəfi var: siyasi dəstək vermədən də insani münasibətləri, uzun illərin formalaşdırdığı əlaqələri qoruyub saxlamaq

mümkün idi. Şevardnadze məhz bunu bacarmamışdı. Xarici İşlər Naziri kimi mühüm post tutmasına baxmayaraq çox adi bir məsələdə yaxasını kənara çəkmişdi - Heydər Əliyevin oğlu, Azərbaycanın indiki Prezidenti İlham Əliyevin əsassız yerə müəllimi olduğu Beynəlxalq Münasibətlər İnstitutundan uzaqlaşdırılmasına da öz etirazını bildirməmişdi.

Bir neçə il sonra, ölkələrinin ağır vəziyyətində tale hər iki tanınmış siyasətçini yenidən vətənə qaytarmışdı. Kremldə qırılmış əlaqələr yenidən bərpa olunmuşdu. Təbii ki, Heydər Əliyev təbiətinə xas olan alicənablıq göstərərək köhnə incikliklərin üzərinə qayıtmamışdı. Çünki mənəvi qələbə onun tərəfində idi. Üstəlik də Gürcüstanın daim ölkəmizin siyasi və iqtisadi dəstəyinə ehtiyac duyduğu bir şəraitdə belə addım atmağı öz mənəvi prinsiplərinə sığışdırmırdı. Çox güman ki, Heydər Əliyevin nümayiş etdirdiyi bu böyük insaniyyət və siyasət nümunəsi Eduard Amvrosiyeviçə daim bir vicdan əzabı yaşadırdı. Görünür, bu vicdan ağrısı o qədər böyük idi Azərbaycan liderinin ünvanına dediyi çoxsaylı tariflər, minnətdarlıq sözləri, dostluq duyğularının izharı, habelə iki ölkənin əbədi qardaşlığı haqqındakı şüarlar da onu uzun müddət səngitməmişdi.

Şevardnadze Heydər Əliyev qarşısında etirafa ehtiyac duyurdu. Bu etiraf 2000-ci ilin aprel ayında Tbilisidə, məşhur gürcü rəssamı və heykəltəraşı Zurab Seretelinin emalatxanasında səsləndi. Söhbətin beş şahidindən biri olduğum üçün onu açıqlamağı zəruri sayıram.

Səfərin sonuncu günü Azərbaycan və Gürcüstan prezidentləri Seretelinin qonağı idilər. Rəssamın emalatxanası ilə tanışlıqdan sonra üçlükdə nahar nəzərdə tutulmuşdu. Lakin son anda Şevardnadze formatı dəyişməklə bağlı təklif verdi - xarici işlər nazirlərinin də nahara qoşulmasını təklif etdi. “Onların bizə maneçiliyi yoxdur” - deyə Heydər Əliyev gülümsəyərək razılığını bildirdi.

Masa ətrafında çox səmimi bir atmosfer vardı. Zalın uzaq küncündə dörd gözəl gürcü qızı skripkada klassik Avropa musiqisi səsləndirirdi. Əvvəlcə Zurab Sereteli ev sahibi kimi yüksək qonaqların şərəfinə badə qaldırdı. Sonra Şevardnadze uzun bir dost dedi, Heydər Əliyevin xidmətlərindən, şəxsiyyətinin böyüklüyündən, keçmiş Sovet İttifaqı və öz vətəni qarşısındakı xidmətlərindən, Gürcüstana dost münasibətindən, dünya siyasətindəki yerindən danışdı. Şəxsi dostluqlarını ön plana çəkdi. Həm sovet dövründə, həm də indi bir çox məsələlərlə bağlı daim onunla məsləhətləşdiyini, ondan öyrəndiyini etiraf etdi. Heydər Əliyev qısa cavab sağlığı deməklə kifayətləndi.

Gözləmədiyimiz halda Şevardnadze gürcü ənənələrinə uyğun olaraq digər qonaqların - yəni hər iki xarici işlər nazirinin də sağlıq demələrini təklif etdi. Belə məqamda nə demək olardı ki? Təbii ki, ilk sözə başlayan gürcü həmkarım İrakli Meneqaraşvili iki qonşu xalqın və onun iki dost dövlət başçısının şərəfinə badə qaldırdı. Eyni sözləri təkrarlamamaq üçün mən Bibliya süjetinə üz tutub həm sovet, həm də müstəqillik dövründə ölkələrinə rəhbərlik edən Azərbaycan və Gürcüstan prezidentlərini öz xalqını Misir əsarətindən çıxarıb qırx illik əzab-əziyyət və məhrumiyyətlərdən sonra xoşbəxtliyə qovuşduran Musa peyğəmbər - Moiseylə müqayisə etdim və onlara da üzərinə götürdüyü şərəfli missiyalarını uğurla başa vurmalarını arzuladım.

Sözümü qurtarıb oturmaq istəyəndə Şevardnadze dedi:

-Bizim balaca Qafqaz üçün iki Moisey çoxdur. Əgər doğrusunu bilmək istəyirsinizsə, mən o zaman da, indi də dostum Heydər Əliyeviçi bu regionun ağsaqqalı, böyüyü saymışam.

Daha sonra üzünü İrakli ilə mənə tutaraq əlavə etdi:

- İstəyirəm bu sirri siz də biləsiniz. Mən 1972-ci ildəki siyasi yüksəlişim üçün ilk növbədə Heydər Əliyeviçə minnətdaram.

Söhbətin sonrakı gedişindən məlum oldu ki, Gürcüstanda proteksionizm və korrupsiya hallarının genişlənməsindən narazı qalan L.İ.Brejnev respublikada hakimiyyət dəyişikliyini zəruri saymış və birinci katib Mjavanadzeni istefaya göndərmək qərarına gəlmişdi. Bəs onu kiminlə əvəz etməli? Sovet lideri bu məsələ barədə Qafqaz regionuna dərindən bələd olan Heydər Əliyevlə məsləhətləşmişdi. Əliyev o zaman Gürcüstanın ictimai asayişi mühafizə naziri vəzifəsində çalışan və birgə fəaliyyətdən yaxşı tanıdığı Şevardnadzenin namizədliyini irəli sürmüşdü. Brejnevin yaxın çevrəsindəkilər ilk öncə bu təyinata müəyyən etimadsızlıqla yanaşdıqlarından Heydər Əliyev daha iki dəfə Brejnevlə görüşüb onu seçimin doğruluğuna inandıra bilmişdi. Gürcüstan KP MK-nın formal plenumundan əvvəl Kremlə çağırılan Eduard Şevardnadze yüksək etimad üçün təşəkkürünü bildirəndə, Brejnev gülümsəyərək “Təşəkkürü Heydər Əliyeviçə etməlisən” - deyib. Yalnız bundan sonra Şevardnadze həqiqi xeyirxahının kim olduğunu bilib.

Gürcü lideri bu maraqlı tarixçəni danışıb qurtardıqdan sonra bir daha Heydər Əliyevin şərəfinə badə qaldırdı. Heydər Əliyev isə sadəcə başını tərpədib gülümsəməklə və “Bəli, belə bir şey olub” - deməklə kifayətləndi.

Artıq neçə illərdir ki, Eduard Şevardnadze öz siyasi xatirələri üzərində işləyir. Maraqla gözləyirəm - Zurab Seretelinin emalatxanasında eşitdiyimiz bu epizod orada öz əksini tapacaqmı?

* * *

Heydər Əliyevi həyatda ilk dəfə 1970-ci ilin sentyabrında görmüşəm. O zaman mərhum Prezidentin də məzunu olduğu Azərbaycan Dövlət Universitetinin - indiki Bakı Universitetinin 50 illiyi qeyd olunurdu. Təntənəli iclasdan sonra tələbə və müəllimlər akt zalının qarşısındakı böyük foyedə respublikaya başçılıq etdiyi bir il ərzində əfsanəvi şəxsə çevrilmiş Heydər Əliyevin ətrafına toplaşmışdı. Bilmirəm necə oldusa mən, o zaman filologiya fakültəsinin birinci kurs tələbəsi olan arıq, qarayanız, qıvrımsaç oğlan bir anlığa respublika rəhbərinin lap yanında, onunla çiyin-çiyinə dayandım. Aradan otuz il keçəndən sonra isə artıq müstəqil Azərbaycan Respublikasına Prezidenti Heydər Əliyevin təyinatı və iradəsi ilə onunla çiyin-çiyinə dayanmaq, onun rəhbərliyi altında işləmək imkanı qazandım.

Düşünürəm ki, bu taleyin mənə ən böyük töhfəsi idi...

**"İki sahil".-**2013.-26 aprel.-N 73.-S.22, 26-27.

# MÜSTƏQİL AZƏRBAYCANIN YENİ İNKİŞAF STRATEGİYASININ MÜƏLLİFİ

**Kərim KƏRİMOV,**
AMEA–nın müxbir üzvü,
geologiya–minerologiya elmləri doktoru,
Azərbaycanın əməkdar elm və texnika xadimi,
professor.

**Hər bir xalqın tarixdəki yeri və rolu hansısa mürəkkəb siyasi şəraitdə məsuliyyəti üzərinə götürərək onun taleyində misilsiz rol oynamış, mütərəqqi ideyaları, qeyri–adi idarəçilik keyfiyyətləri ilə sabit dövlətçilik ənənələri formalaşdırmış dahi şəxsiyyətlərin fövqəladə missiyası ilə şərtlənir. Tanrının bəxş etdiyi belə seçilmiş şəxsiyyətlər xalqlarının əsrlər boyu cilalanmış dövlətçilik təfəkkürü, siyasi dünyagörüşü, milli dəyərləri əsasında optimal dövlət modeli və siyasi varislik ənənələri yaradırlar. Bu günün özündə də dünyanın bir çox nüfuzlu dövlətləri məhz fenomen liderlərinin müəyyənləşdirdiyi yolla irəliləyir, davamlı və sabit inkişafı bu uğur magistralından kənarda təsəvvür etmirlər.**

Dünya miqyaslı ictimai–siyasi xadim, ümummilli lider Heydər Əliyev də müstəqil Azərbaycan dövlətçiliyinin ideoloji–siyasi, iqtisadi əsaslarını yaratmış, xalqın müstəqil və güclü dövlətə sahib olmaq arzusunu praktik şəkildə gerçəkləşdirmiş strateq kimi çağdaş tariximizdə əbədiyaşarlığını təmin etmiş, hələ sağlığında canlı əfsanəyə çevrilmişdir. Xalqımız tarix boyu qazandığı dövlətçilik ənənələrini, milli dəyərləri, nailiyyətləri, ali mənəvi keyfiyyətləri məhz Heydər Əliyev epoxasında təkmilləşdirərək dayanıqlı müstəqil dövləti qurmuş, millət kimi mövcudluğunu, özünü idarə etmək bacarığını ən yüksək səviyyədə nümayiş etdirmişdir.

Möhtərəm Prezident İlham Əliyevin 2013–cü il 21 yanvar tarixdə imzaladığı "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" sərəncamında deyildiyi kimi, "Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir".

1969–cu il iyulun 14–də Azərbaycanın rəhbəri seçilən Heydər Əliyev AKP MK–nın plenumunda dərin məzmunlu çıxış edərək qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsi üçün əlindən gələni əsirgəməyəcəyini demişdi. "Mən bütün Büro üzvlərinin köməyinə ümid edirəm və hesab edirəm ki, birgə, mehriban əməkdaşlığımız gələcək uğurlarımıza gözəl zəmin yaradacaqdır". Dahi öndər ali kürsüyə yüksəldiyi ilk gündən bütün varlığı ilə sevdiyi xalqının intibahı və xoşbəxt gələcəyi naminə böyük fədakarlıqlar göstərmişdir. Heydər Əliyev elə ilk plenumda ana dilində nitq söyləməklə köhnə stereotipləri alt–üst etmiş, milli ideallara bağlı lider olduğunu yüksək kürsüdən nümayiş etdirmişdir. Zəngin təbii sərvətlərinə, istehsal potensialına baxmayaraq, Azərbaycanın keçmiş SSRİ–nin geridə qalmış respublikalar sırasına düşməsinin səbəblərini araşdıran Heydər Əliyev iqtisadi inkişafa xidmət edən kompleks tədbirlərin həyata keçirilməsini təmin etməklə, peşəkar strateq və müdrik dövlət xadimi olduğunu sübuta yetirmişdir. Ümummilli lider respublikada ilk növbədə, milli–mənəvi ruhu yüksəltməklə, azərbaycanlıların öz tarixi ənənələrinə, köklərinə bağlılığını sürətləndirməyə çalışmış, xalqın müstəqil yaşaya bilməsi üçün lazım olan iqtisadi və maddi–texniki bazanın formalaşdırılmasına xüsusi diqqət yetirmişdir.

Ulu öndər Heydər Əliyevdən əvvəlki respublika rəhbərləri respublikada mərkəzin siyasətini həyata keçirmiş, bu siyasətin Azərbaycan xalqının mənafeyinə zidd olan məqamlarında lazımi cəsarət və qətiyyət nümunəsi göstər deməmişdilər.

Bu da respublikada sosial–iqtisadi tənəzzülün, durğunluğun, bürokratik amillərin, rüşvətxorluq və korrupsiyanın geniş vüsət almasına gətirib çıxarmışdı. İqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsində olan respublikada yaranmış bu ağır vəziyyətdən çıxış yolu tapılmalı, onun iqtisadi inkişafının təmin edilməsi üçün işlək proqramlar hazırlanmalı, iqtisadiyyatda köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıqda, iqtisadi həvəsləndirmədə yeni üsullar tətbiq olunmalı idi. Bu zəruri tələbləri düzgün dəyərləndirən Heydər Əliyev onu da yaxşı bilirdi ki, millətin siyasi müstəqilliyinin təməlini məhz onun iqtisadi azadlığı şərtləndirir.

Ümummilli lider Heydər Əliyev Azərbaycan KP MK–nın 1969–cu il 5 avqust tarixli plenumunda çıxış edərkən respublika iqtisadiyyatının inkişafında müəyyən çətinliklərin, problemlərin olduğunu vurğulamış, xalq təsərrüfatının bir çox sahələrinin geri qaldığını qeyd etmişdir. Həmçinin vurğulamışdır ki, yeni mərhələdə qarşıda dayanan başlıca vəzifə səhiyyədə, tikintidə və kənd təsərrüfatında yaranmış vəziyyətin müfəssəl təhlili əsasında bütün qüvvələri səfərbərliyə almaqdan ibarətdir. Heydər Əliyevin bu cəsarətli fikirləri, əslində, sovet dövlətində guya heç bir problemin olmaması ilə bağlı gurultulu şüarların təkzibi idi. Mərkəzin icazəsi olmadan hansısa sahədəki vəziyyətin təhlili, hansısa vəzifələr ətrafında səfərbərlik kommunist mənafeyini xalqa, milli dövlətə bağlılıq hissindən daha yüksəkdə tutan insanlar üçün, sözün əsl mənasında, möcüzə kimi görünürdü. Beləları heç cür inana bilmirdilər ki, Azərbaycanın birinci şəxsi belə açıq tənqidi fikirlərdən çıxış edə bilər. Heydər Əliyevin çıxışında sovet təbliğat maşını tərəfindən formalaşdırılan yanlış təsəvvürün tamam əksi vurğulanırdı: "Azərbaycanın bütün İttifaq göstəricilərindən və digər respublikaların göstəricilərindən geri qalması ciddi təşviş hissi doğurur. Bunu nə ilə izah etmək olar? Aydındır ki, hər bir sahədəki çatışmazlıqların öz xüsusi səbəbləri vardır. Lakin təhlil göstərir ki, bir çox sahələr üçün səciyyəvi olan ümumi səbəblər də az deyildir. Bu hər şeydən əvvəl etibar edilən iş sahəsi üçün bəzi rəhbərlərin məsuliyyət hissini itirməsindən ibarətdir. Odur ki, müəssisələrə rəhbərliyin səviyyəsi çox aşağıdır, lazımi tələbkarlıq və intizam yoxdur".

60–cı illərin sonlarına doğru sosial–iqtisadi həyatın bütün sahələrinin gerilədiyi, mənfi meyillərin güclənərək getdikcə daha dərin kök saldığı Azərbaycanda siyasi rəhbərliyə seçilən yeni rəhbərin ilk işi respublikada iqtisadi potensialın dağılmasının, ictimai–siyasi həyatda yaranmış tənəzzülün xalqın mənəvi–psixoloji vəziyyətinə mənfi təsir göstərə bilməsinin qarşısını almaqdan ibarət oldu. Ümummilli lider qısa müddətdə respublika iqtisadiyyatında ciddi keyfiyyət dəyişikliklərinə nail olmaqla, Azərbaycanı xammal istehsalçısından qabaqcıl, müasir texnika və texnologiya ilə təchiz olunmuş sənaye bazasına çevirə bildi. Keçmiş Sovet İttifaqı kimi böyük bir dövlətin zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək respublikanı tərəqqi yoluna çıxaran Heydər Əliyev yeni və mütərəqqi sənaye sahələrinin yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirdi. Sənayenin inkişaf səviyyəsinə görə respublikanın bütün bölgələrinin proporsional inkişafı yönümündə ardıcıl addımlar atıldı, istehsalla bilavasitə bağlı elmi–tədqiqat sahələrinin inkişafı üçün kompleks tədbirlər görüldü. Elmi–texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalatda tətbiqi Azərbaycanın bütün SSRİ–də qabaqcıl mövqelərə çıxmasına, ölkənin sosial–iqtisadi həyatında yüksəlişə rəvac verdi.

Ümummilli liderin böyük qətiyyət və iradə əsasında formalaşdırmağa başladığı sənaye potensialı əsasında respublikamız 70–ci illərdə neft maşınqayırması, məişət kondisionerləri, elektrik mühərrikləri, elektromaqnit avadanlığı, soyuducular, sintetik kauçuk, boru–prokat, şüşə və şüşə qablar və s. istehsalına görə İttifaq miqyasında qabaqcıl mövqelərə çıxmışdır. Həmin illərdə Bakıda, Sumqayıtda, Gəncədə və digər şəhərlərdə inşa olunan iri müəssisələr bugünün özündə də milli iqtisadiyyatımızın güclü sənaye kompleksinin formalaşmasına zəmin yaradan möhkəm təməldir.

Heydər Əliyevin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ–nin bir sıra strateji əhəmiyyətli müəssisələri məhz Azərbaycanda inşa olunmuş, bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsası formalaşdırılmışdır. Ulu öndər Heydər Əliyev bu məsələdə daim qətiyyətli mövqe tutmuş, keçmiş İttifaqın rəhbərliyi qarşısında israrlı tələblərlə çıxış etmiş, prinsipialıq göstərmişdir. Bu nöqteyi–nəzərdən dahi öndərimizin Bakı Məişət Kondisionerləri zavodunun inşası ilə bağlı göstərdiyi əzmkarlığı xüsusi qeyd etmək lazımdır. 70–ci illərin əvvəllərində İttifaq rəhbərliyi bu zavodun Zaporojye şəhərində inşa olunmasına qərar versə də, şəxsi nüfuzundan istifadə edən Heydər Əliyev Brejnevlə görüşərək həmin müəssisənin məhz Bakıda tikilməsi vacibliyini konkret dəlillərlə əsaslandıraraq son nəticədə istəyinə nail oldu. 1975–ci ilin dekabrında Bakı Məişət Kondisionerləri zavodunun işə düşməsi məhz dahi öndərin böyük vətənpərvərliklə həyata keçirdiyi əzmkar fəaliyyətin məntiqi nəticəsi idi.

Müdrik liderin təkidi qarşısında keçmiş İttifaq rəhbərliyi respublikamızda bir sıra iri müasir maşınqayırma, kimya, neft kimyası, elektron sənayesi, əlvan və qara metallurgiya, tekstil, yeyinti, emal müəssisələrinin tikintisinə razılıq vermiş, paralel olaraq energetika və nəqliyyat kompleksi sürətlə inkişaf etmişdir. Həmin dövrdə sənayenin inkişafını müəyyənləşdirən tamamilə yeni sahələr meydana gəlmiş, müxtəlif elektrik cihazları istehsal edən zavodlar inşa olunmuşdur. Ümumilikdə, 1970–1985–ci illərdə Heydər Əliyevin təşəbbüsü və ciddi səyləri nəticəsində Azərbaycanda onlarca zavod, fabrik, istehsalat sahələri yaradılmış, 250–dən artıq sənaye müəssisəsi fəaliyyətə başlamışdır. Azərbaycan bir sıra istehsal sahələrinə görə Sovet İttifaqında aparıcı yer tutur, burada istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac edilirdi. Həmin illərdə istehsal olunan sənaye məhsullarının ümumi həcmi respublikanın əvvəlki 50 ildəki istehsal həcminə bərabər idi.

Neft sənayesinin iqtisadi inkişafdakı rolunu müdrikliklə nəzərə alan Heydər Əliyev 70–ci illərdə bu sahənin də dinamik inkişafına nail olmuş, neft–kimya sənayesinin tamamilə modernləşdirilməsini təmin

etmişdir. Həmin dövrdə neft sənayesinin inkişafında tamamilə yeni mərhələ başlanmış, bu zəngin milli sərvətin Azərbaycanın rifahına xidmət edən vasitəyə çevrilməsi prosesinin əsası qoyulmuşdur. Yeni yataqların kəşfiyyatı, qazılması, işlənməsi, mütərəqqi texnologiyalardan və üsullardan istifadədə yeniliklər də məhz Heydər Əliyevin təşəbbüskarlığı nəticəsində mümkün olmuşdur. Ümummilli liderin qətiyyətli addımları nəticəsində ölkədə neft sənayesi konsepsiyasının nəzəri inkişafını təmin edən elmi–tədqiqat institutları, istehsalat birlikləri və digər müəssisələr yaradılmışdır. Heydər Əliyevin müəllifliyi ilə tərtib olunan "Azərbaycanda neftayırma sənayesinin yenidən qurulması" planı əsasında bu tipli müəssisələrin, iri komplekslərin tikilməsi və yeni fəaliyyət prinsiplərinə keçməsi prosesi sürətlə başa çatdırılmışdır. Azərbaycan məhz Heydər Əliyevin fədakarlığı nəticəsində keçmiş SSRİ–də neft hasilatı, emalı, geologiyası, kəşfiyyatı ilə məşğul olan aparıcı dövlətlərdən birinə çevrilmiş, əldə olunan uğurlar isə bilavasitə respublikamızm inkişafına yönəldilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin də bəyan etdiyi kimi, Əgər 70–ci illərdə Azərbaycanın təkmil neft sənayesi kompleksi formalaşmasaydı, müstəqillik dövründə yeni neft strategiyasını uğurla həyata keçirmək də çətin olacaqdı.

Keçmiş imperiya daxilində hansı qlobal proseslərin getdiyini daha dərindən müşahidə etmək imkanına malik olan Heydər Əliyev Azərbaycanın nə vaxtsa müstəqillik əldə edəcəyini öncədən görərək bunun üçün iqtisadi–siyasi, intellektual baza formalaşdırmışdır. Həmin illərdə ulu öndər milli kadr hazırlığına da xüsusi diqqətlə yanaşmış, dövlət idarəçiliyində azərbaycanlıların sayı artmış, onların xaricdə təhsil almasına yaxşı imkanlar yaratmışdır. Məhz o dövrdə xaricdə yüksək təhsil almış kadrlar bu gün də dövlət quruculuğu prosesinə öz töhfəsini verirlər.

Həmin illərdə formalaşdırılmış böyük iqtisadi potensial 90–cı illərin sonlarına doğru dünyada cərəyan edən mürəkkəb proseslərin nəticəsi kimi istiqlaliyyət qazanmış Azərbaycanın sonrakı mərhələdə müstəqil yaşamasını təmin etmişdir. Müdrik xalqımızın XX əsrdə dünya siyasi arenasına bəxş etdiyi nadir şəxsiyyət kimi ümummilli liderlik zirvəsinə ucalmış Heydər Əliyev bu gün həm də müstəqil respublikamızın milli inkişaf modelinin banisi kimi böyük ehtiram və rəğbətlə xatırlanır. Heydər Əliyev özünün dərin iqtisadi bilik və təcrübəsi əsasında Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirmiş, bu sahədə mövcud problemlərin həlli yollarını elmi–nəzəri və praktiki əsasda göstərmişdir.

Respublikamızda son dərəcə ağır və böhranlı ictimai–siyasi vəziyyətin hökm sürdüyü zamanda – 1993–cü ilin iyununda xalqın təkidli tələbi və xahişi ilə ölkə rəhbərliyinə qayıdan ulu öndər Heydər Əliyev müdrik siyasətçi kimi yaxşı bilirdi ki, Azərbaycanın dünya miqyasında layiqli yerini tutması və dinamik iqtisadi inkişafı heç də sırf təbii sərvətlərin zənginliyinə söykənmir. Böyük strateq çıxışlarında daim vurğulamışdır ki, tarixdə neftlə zəngin bir çox dövlətlərin uğursuz siyasətinin nəticəsi kimi müstəqilliklərini itirərək qeyri–stabillik şəraitində yaşaması, ağır sosial–iqtisadi problemlərlə, aclıq və səfalətlə üzləşməsi ilə bağlı çoxsaylı misallar mövcuddur. Dünya təcrübəsində iqtisadiyyatın yalnız neft amili üzərində qurulması və neft gəlirlərinə güvənlik nəticəsində iqtisadi sistemi iflic edən "Holland sindromu" kimi mənfi presedent də var.

1993–cü ilin iyunundan etibarən ümummilli lider Heydər Əliyevin ciddi səyləri nəticəsində daxildə möhkəm təməllərə əsaslanan ictimai–siyasi sabitliyin bərqərar olunması, qanunçuluğun gücləndirilməsi, xarici sərmayələrə dövlət təminatının verilməsi xarici investorların respublikamıza münasibətinin əsaslı surətdə dəyişməsinə gətirib çıxarmışdır. Ulu öndər yaxşı başa düşürdü ki, həmin dövr üçün respublikanın tam müstəqilliyi və bir çox dövlətçilik problemlərinin həlli, o cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi aparıcı Qərb dövlətlərinin səyi ilə gerçəkləşə bilər. Heydər Əliyev Azərbaycanın güclü və qüdrətli dövlətə çevrilməsi üçün ölkənin malik olduğu zəngin karbohidrogen ehtiyatlarından səmərəli istifadəni vacib sayaraq ilk gündən yeni neft strategiyasının işlənib hazırlanması və uğurla həyata keçirilməsi üçün əzmlə çalışmağa başlamışdır. İqtisadi problemlər məngənəsində sıxılan Azərbaycanın məhdud maliyyə imkanları ilə zəngin neft–qaz yataqlarının mənimsənilməsinin, bu əvəzsiz təbii sərvətin dünya bazarlarına çıxanlmasının qeyri–mümkünlüyünü düzgün qiymətləndirən Heydər Əliyev çıxış yolunu Qərb şirkətləri ilə milli maraqlara söykənən əməkdaşlığın qurulmasında görürdü.

1994–cü ilin aprelində diplomatiya sahəsində zəngin bilikləri olan, biznes mühitinin incəliklərini dərindən mənimsəyən cənab İlham Əliyevin Azərbaycan Res–publikası Dövlət Neft Şirkətinin beynəlxalq əlaqələr üzrə vitse–prezidenti təyin edilməsi isə xalq və dövlət naminə düzgün seçim olmaqla, ulu öndərin Qərb şirkətləri ilə aparılacaq danışıqlara necə böyük əhəmiyyət verməsinin əyani göstəricisi idi. Səlahiyyətlərinin icrasına inamla başlayan cənab İlham Əliyev Azərbaycanın mənafeyini əks etdirən yeni neft strategiyasının hazırlanması prosesində ulu öndərin ən etibarlı, işgüzar və bacarıqlı köməkçisinə çevrildi. Onun üzərinə bütün mövcud çətinliklərin öhdəsindən gəlmək, neft müqavilələrində Azərbaycanın milli mənafeyinin maksimum səviyyədə qorunmasına nail olmaq kimi tarixi missiya düşdü. Bu vəzifəyə təyinatından cəmi iki həftə sonra neft müqaviləsi layihəsinin hazırlanması məqsədilə əvvəl Türkiyəyə, daha sonra isə ABŞ–ın Hyuston şəhərinə yola

düşən cənab İlham Əliyev diplomatik bacarığını yüksək səviyyədə nümayiş etdirərək Qərb şirkətlərində inam və etimad formalaşdırmağa nail oldu. Bu hadisə bir daha təsdiqlədi ki, cənab İlham Əliyev ən çətin, mürəkkəb situasiyalarda belə ölkənin milli mənafelərini layiqincə müdafiə etmək əzmindədir.

Azərbaycan rəhbərliyi həmin illərdə, həqiqətən də, heç bir səhvə yol vermədən aparıcı Qərb şirkətləri ilə aparılan danışıqların uğurlu məntiqi sonluqla yekunlaşmasına nail oldu. 1994–cü ilin 20 sentyabrında Bakıda dünyanın 11 transmilli neft şirkətinin iştirakı ilə çağdaş tariximizə "Əsrin müqaviləsi" adı ilə düşmüş qlobal neft müqaviləsinin təntənəli imzalanma mərasimi keçirildi. Bununla da Azərbaycan MDB məkanında Qərbin iri neft şirkətləri ilə iri miqyaslı saziş imzalayan ilk dövlət olmaqla, Xəzər dənizində beynəlxalq əməkdaşlığın bünövrəsini qoydu. Ulu öndər Heydər Əliyev o dövrün böhranlı sosial–iqtisadi şəraitində növbəti dəfə böyük siyasi iradə,dəqiq iqtisadi hesablama və müdriklik nümayiş etdirərək, müstəqil Azərbaycanın yeni neft strategiyasını irəli sürmüş, buna qarşı yönəlmiş bütün maneələri mətinliklə dəf etmişdir. Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq", "Günəşli" yataqlarının birgə mənimsənilməsini nəzərdə tutan bu sazişin reallaşması təkcə respublikamız üçün deyil, Qərbin bir sıra aparıcı dövlətləri, habelə Cənubi Qafqaz və Orta Asiya regionu üçün strateji əhəmiyyət daşıyırdı. Regionda beynəlxalq əməkdaşlığın təməlini qoymuş bu qlobal enerji müqaviləsi eyni zamanda Azərbaycanın müstəqil dövlət olaraq öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını sonadək müdafiə etmək əzmində olduğunu təsdiqlədi. Regionda digər qlobal enerji və kommunikasiya layihələrinin gerçəkləşdirilməsi anlamında da müsbət presedent yarandı, Azərbaycanın Qərb dövlətləri ilə münasibətləri strateji müstəvidə inkişaf etməyə başladı.

"Əsrin müqaviləsi"nin imzalanması ilə Xəzərdə maraqları təmin olunmuş bəzi aparıcı Qərb dövlətlərinin, o cümlədən ABŞ–ın Azərbaycanla bütün sahələrdə genişmiqyaslı əməkdaşlığa marağı artmış, beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıq sahəsində tamamilə yeni mərhələnin başlanğıcı qoyulmuşdur. Bu müqavilə respublikamızın dövlət müstəqilliyinin mühüm təminatına çevrilməklə, azad iqtisadi mexanizmlərin tətbiqini və dünya iqtisadiyyatına dinamik inteqrasiyasını təmin etmişdir. Yeni neft strategiyasın uğurları Azərbaycanın Avratlantik məkana inteqrasiya prosesini sürətləndirmiş, respublikamıza sərmayə qoyulması sahəsində ciddi dönüş yaratmışdır.

Ümummilli liderin rəhbərliyi altında həyata keçirilmiş struktur islahatları Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafına, o cümlədən yerli və xarici investisiyalar, müasir texnologiyalar, idarəetmə təcrübəsi cəlb etməklə rəqabət qabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan vermişdir. Heydər Əliyev respublika iqtisadiyyatının keyfiyyətcə yeni mərhələsində özəl sektoru sosial–iqtisadi inkişafın başlıca təminatçısı kimi dəyərləndirmiş, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışmışdır. 1997–2002–ci illərdə respublikada sahibkarlığın inkişafı üçün zəruri maliyyə təminatı yaradılmış, süni maneələrin aradan qaldırılması üçün mükəmməl qanunvericilik bazası formalaşdırılmış, fəaliyyətin bu növü ilə məşğul olanların hərtərəfli stimullaşdırılması məsələsi diqqət mərkəzində saxlanılmışdır. İnvestisiyaların təşviqi üçün respublikada daha münbit şərait yaratmaq, daxili və xarici sərmayəni stimullaşdıran səmərəli metodlardan istifadə etmək, xarici kapital qoyuluşunun başlıca istiqamətini regionların, qeyri–neft sektorunun inkişafına yönəltmək, habelə maddiləşən işgüzar fəallığı gücləndirmək üçün kompleks tədbirlər həyata keçirilmişdir.

Azərbaycanın dinamik sosial–iqtisadi inkişafına təkan verən islahatlar 2003–cü ilin 15 oktyabrından ümummilli liderimizin layiqli siyasi davamçısı – Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Dövlət başçısının böyük əzmkarlıqla davam etdirdiyi çoxşaxəli islahatlar kursu respublikamızın yeni sosial–iqtisadi təmayüllərini dəqiq şəkildə müəyyənləşdirməklə böyük uğurlara zəmin yaratmış, hər bir vətəndaşın həyatmda nəzərəçarpacaq irəliləyişlərə səbəb olmuşdur. Prezident İlham Əliyevin 10 ilə yaxın fəaliyyətinin təhlili göstərir ki, bu müddətdə konturları hələ Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş bütün konsepsiyalar uğurla davam etdirilmiş, zəruri hallarda məhz onun təşəbbüsü ilə dövrün tələblərinə uyğun olaraq keyfiyyət dəyişikliklərini özündə əks etdirmişdir.

Prezident İlham Əliyevin uğurla davam etdirdiyi neft strategiyası Azərbaycanın son 10 ildə inanılmaz inkişaf yolu keçməsini şərtləndirmişdir. İstehsal etdiyi xam nefti Qərb bazarlarına ixrac edən Azərbaycan xüsusən 2006–cı ildən böyük iqtisadi dividendlərə nail olmuşdur. Neft gəlirlərinin iqtisadiyyatın digər vacib sahələrinə, xüsusən də qeyri–neft sektoruna, sahibkarlığın inkişafına yönəldilməsi, yeni müəssisələrin açılması yolu ilə işsizlik probleminin aradan qaldırılması, bir sözlə, əhalinin sosial müdafiə tədbirlərinin gücləndirilməsi Prezident İlham Əliyevin ilk gündən hökumət qarşısında müəyyənləşdirdiyi mühüm vəzifələrdəndir. Dövlət başçısının işlək mexanizmlər üzərində gerçəkləşdirdiyi uğurlu sosial–iqtisadi islahatların nəticəsi olaraq bu gün Azərbaycan dünyamn ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilmişdir. 2010–cu ildə dövlət büdcəsinin 2003–cü ildəki 1,3 milyard dollardan 25 milyard dollara yüksəlməsi, respublikamızın valyuta ehtiyatlarının

Dövlət Neft Fondunda toplanan vəsaitlərlə birgə 48 milyard dollara çatması ulu öndər Heydər Əliyev tərəfindən bünövrəsi qoyulmuş sosial–iqtisadi inkişaf strategiyasının uğurlu nəticələri kimi dəyərləndirilməlidir.

Azərbaycan Prezidenti respublikanın neft gəlirlərindən asılılığının aradan qaldırılması isti–qamətində ardıcıl tədbirlər həyata keçirir. Dövlət başçısı iqtisadi inkişafa yalnız neft amili hesabına nail olmağı məqbul saymır, tarazlı və davamlı tərəqqi naminə qeyri–neft sektoruna xüsusi diqqət yetirilməsi vacibliyini önə çəkir: “Biz öz siyasətimizi elə aparmalıyıq ki, guya Azərbaycanda neft yoxdur. İqtisadiyyatın bütün sahələrində və ilk növbədə, qeyri–neft sektorunda mövcud strukturlar inkişaf etdirilməlidir. Biz yalnız bu yolla Azərbaycanı hərtərəfli inkişaf etmiş dövlətə çevirə bilərik”. Dövlət başçısı neft gəlirlərini digər strateji sahələrə yönəltməklə, qeyri–neft sektorunun, sahibkarlığın, sənayenin inkişafına, infrastrukturun müasirləşməsinə çalışır. Bu siyasət neftdən asılılığı azaltmaqla ölkədəki dinamik iqtisadi inkişaf tempini sabit saxlamağa imkan verən fundamental əsasların yaradılmasını nəzərdə tutur. Prezident İlham Əliyev bu əvəzsiz təbii sərvətin ixracından qazanılan böyük vəsaitlərin, ilk növbədə, insan faktorunun inkişafına yönəldilməsini, elmi–texniki tərəqqinin son nailiyyətlərinin tətbiqi yolu ilə dayanıqlı milli inkişafın təmin edilməsini zəruri sayır.

Böyük Britaniyanın mədən və hasilat sənayesində şəffaflıq təşəbbüsünə qoşulmuş Azərbaycanda, eyni zamanda, neft–qaz sənayesində gəlirlərin idarə olunması üzrə uzunmüddətli strategiya işlənib hazırlanmışdır. Neft Fondunda toplanmış gəlirlərdən səmərəli istifadə olunmasına dövlət tərəfindən göstərilən həssas münasibətin təzahürü kimi, Azərbaycan Prezidenti İlham Əliyevin 27 sentyabr 2004–cü il tarixli fərmanı ilə təsdiq edilmiş “Neft və qaz gəlirlərinin istifadə olunması üzrə uzunmüddətli strategiya”nın əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Bu strategiyada vəsaitlərin qeyri–neft sektorunda, regionların, kiçik və orta sahibkarlığın inkişafında, infrastruktur sahələrin genişmiqyaslı inkişafında, yoxsulluğun azaldılması üzrə tədbirlərin həyata keçirilməsində, “insan kapitalının” formalaşmasında, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsində və digər bu kimi istiqamətlərdə istifadə olunması nəzərdə tutulmuşdur.

Neft strategiyasının uğurları bu gün artıq hər bir vətəndaşın həyatında qabarıq hiss edilir və Azərbaycanın davamlı yüksəlişinə geniş imkanlar açır. Neft strategiyasının uğurlu göstəricilərindən biri də 2013–cü ilin birinci rübündə iqtisadiyyatın qeyri–neft sektorunda 11,4 faizlik artımın olmasıdır. Bunu son illərin ən yaxşı göstəricisi kimi dəyərləndirən dövlət başçısı İlham Əliyev 2013–cü ilin qeyri–neft sektorunun inkişafı baxımından mühüm nəticələrlə yaddaqalan qalacağına əminliyini vurğulamışdır: “2013–cü ilin birinci rübündə iqtisadi inkişaf özünü bir daha göstərdi. Xüsusilə qeyri–neft sektorundakı inkişaf məni çox sevindirir. Bu ilin birinci rübündə ümumi daxili məhsul 3,1 faiz artmışdır. Hesab edirəm ki, bu, çox yaxşı göstəricidir. Biz bu artımı qeyri–neft sektorunun hesabına əldə etmişik. Bu ilin birinci rübündə qeyri–neft sektorunun inkişafı 11,4 faiz olmuşdur. Yəni bu, hesab edirəm ki, bugünkü Azərbaycan iqtisadiyyatını təhlil etmək üçün əsas göstərici olmalıdır”.

Azərbaycanı zəngin və qüdrətli dövlətə çevirməyi qarşısına məqsəd qoyan Prezident İlham Əliyev neft gəlirlərindən səmərəli istifadə etməklə, iqtisadi sahədə böyük uğurların qazanılmasını təmin etməklə verdiyi hər bir vədini əməli işilə doğruldur. Anadan olmasının 90–cı ildönümünü qeyd etdiyimiz ulu öndər bu gün aramızda olmasa da, onun layiqli davamçısı, cənab İlham Əliyevin böyük əzmkarlıqla həyata keçirdiyi iqtisadi siyasətlə təsəlli tapır, gələcəyə böyük qürur və əminliklə baxırıq. Həm də ona görə ki, ulu öndər Heydər Əliyevin formalaşdırdığı unikal dövlətçilik modelini daha da zənginləşdirən, onu müasir dünyanın gerçəkliklərinə uyğun inamla davam etdirən qətiyyətli lider var. Prezident İlham Əliyevin yeritdiyi uğurlu enerji siyasəti nəticəsində mövcud problemlərin tədricən aradan qalxması vətəndaşlarda ölkədəki mövcud siyasi kursa inam və rəğbəti daha da artırır. Hər bir vətəndaş qəti əmindir ki, həyata keçirilən məqsədyönlü iqtisadi siyasət yaxın illərdə onun həyatında əhəmiyyətli dəyişikliklərin baş verməsinə, bir sözlə, insan amilinin yüksəlişinə xidmət edir.

**“Respublika”.-**2013.-30 aprel.-N 90.-S.5.

# HEYDƏR ƏLİYEVİN DÖVLƏT QURUCULUĞU STRATEGİYASI VƏ İQTİSADİ İSLAHATLAR

**Vahid NOVRUZOV,**
Azərbaycan Respublikası Auditorlar Palatasının sədri,
iqtisad elmləri doktoru, professor

1993-cü ilin səksəkəli yayında ulu öndər Heydər Əliyevin Vətəni sevən hər bir azərbaycanlının ürəyində ümid çırağı yandıran "Biz Azərbaycanı bu vəziyyətdən çıxarmağa qadirik" sözlərini bütün xalq bir çağırış kimi qəbul etdi.

Gücünü öz xalqından alan və eyni zamanda, həmvətənlərində ölkənin uğurlu gələcəyinə inam yaradan Heydər Əliyev bütün qüvvəsini Azərbaycanı ağır vəziyyətdən çıxarmağa və hərbi-siyasi sabitlik yaratmağa sərf edəcəyi barədə 1993-cü il avqustun 23-də Bakıda ümumrespublika müşavirəsində etdiyi çıxışın və onun real nəticələrinin müstəqil Azərbaycan Respublikası üçün əhəmiyyətini nəinki hər bir qeyrətli vətəndaşımız, dostlarımız qiymətləndirdi, hətta açıq və gizli düşmənlərimiz belə, bunu etiraf etməyə məcbur oldular.

Heydər Əliyevin dövlət quruculuğu strategiyasının ana xəttini təşkil edən cəmiyyətin demokratikləşdirilməsi prinsipi artıq müstəqil Azərbaycan Respublikasını bütün dünyada tanıtmış və ölkəmizin dünya birliyində öz layiqli yerini tutması üçün möhkəm zəmin yaratmışdır.

Hələ 19 il öncə, 1994-cü il iyunun 21-də Prezident sarayında respublika iqtisadiyyatının və həyatının digər sahələrinin cari məsələlərinə həsr olunmuş müşavirədəki yekun nitqində ulu öndər demişdi: "Biz respublikamızda hüquqi-demokratik dövlət qurmaq yolu ilə gedirik. Bu, dövlət quruculuğunda, siyasi sahədə strateji yolumuzdur. Bununla, çox sıx əlaqədə ikinci sahə iqtisadiyyatın demokratik yollarla idarə edilməsidir, yəni, iqtisadiyyatda demokratik islahatlar aparılması, bazar iqtisadiyyatı yoludur. Bütün bunlar kompleks şəkildə respublikamızı gələcəyə aparan yollar, istiqamətlərdir".

Az bir müddət ərzində Azərbaycanda demokratik prinsiplərin bərqərar olması, qayda-qanunun daha etibarlı qorunması təmin edilməklə hərc-mərcliyə və özbaşınalığa son qoyuldu. Belə bir məqam xüsusi qeyd olunmalıdır ki, dövlət quruculuğu prosesində demokratik prinsiplərin yer alması nəinki ictimai-siyasi mühiti saflaşdırmış, eləcə də iqtisadi sabitliyi təmin edən köklü faktora çevrilmişdir.

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasının Heydər Əliyev tərəfindən düzgün seçildiyini artıq 1996-cı ildə müşahidə olunan iqtisadi sabitlik və 1997-ci ildən başlayan sosial-iqtisadi inkişaf xətti daha bariz şəkildə nümayiş etdirir.

Azərbaycanın sərbəst bazar münasibətlərinə əsaslanan liberal iqtisadiyyat xəttini dəstəklədiyini dünyaya bəyan edən ulu öndərin böyüklüyü ondadır ki, o, həqiqi müstəqilliyin, siyasi azadlığın iqtisadi qüdrət və inkişafdan keçdiyini bilir və ölkənin məhz belə bir yolla irəliləməsini təqdir edirdi.

Heydər Əliyev iqtisadi platformasında iqtisadi islahatlar dedikdə, Azərbaycan iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə aparmaq, özəl bölmənin fəaliyyətini genişləndirmək və özəlləşdirməni həyata keçirmək, sahibkarlığa, təşəbbüskarlığa geniş imkanlar yaratmaq, ölkə iqtisadiyyatını dünyanın inkişaf etmiş ölkələrinin iqtisadi sistemi əsasında qurmaq və dünya iqtisadiyyatına inteqrasiya etmək nəzərdə tutulurdu.

İqtisadi islahatların zəruriliyindən bəhs edən ulu öndər tarixi faktlara əsaslanmaqla qəti mövqeyini aşağıdakı fikri ilə əsaslandırırdı: "...sosializm quruluşunun ən yüksək bəhrələrini görmüşük. Onun verdiyi bəhrələri heç kəs, heç vaxt inkar edə bilməz. Xüsusən, bizim respublikamızda. Lakin o quruluş, iqtisadi sistem özünün son həddinə gəlib çatmışdı. Buna görə də onun sonrakı inkişafı mümkün olmadı, iqtisadiyyat, ümumiyyətlə, inkişaf dayandı və geriləmə prosesi başlandı. Təsadüfi deyildi ki, 1980-1985-ci illərdə yeni yollar axtarmağa başladılar. Bu da yeganə bir yola gətirib çıxardı: iqtisadi islahatlar aparmalı, bazar iqtisadiyyatı yolu ilə getməli, bazar iqtisadiyyatı prinsiplərini tətbiq etməli".

Heydər Əliyev idarəetmənin sosialist inzibati-amirlik sistemindən, sosialist iqtisadiyyatından bazar münasibətlərinə, inkişafın bazar qanunlarına, azad sahibkarlığa əsaslanan iqtisadiyyata keçirilməsinin nə demək olduğunu aydın dərk edirdi. Yəni, müstəqil dövlət kimi, Azərbaycan gələcəkdə də bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı iqtisadi və siyasi münasibətlər əsasında dünya birliyinin fəal iştirakçısına çevrilməyi nəzərdə tutaraq, öz müstəqilliyini daha da möhkəmləndirmək və inkişaf etdirmək yolu ilə getdi. Eyni zamanda, xarici investorların, dünya maliyyə institutlarının, transmilli korporasiyaların, xarici şirkətlərin imkanlarından istifadə edilməklə iqtisadiyyatı bazar prinsipləri zəminində yenidən quraraq, iqtisadi yüksəlişə böyük təkan vermək üçün məqsədyönlü tədbirlər həyata keçirildi.

Keçirdiyi müşavirələrdən birində ulu öndər bazar iqtisadiyyatının fəlsəfəsi barədə demişdir: "Bazar iqtisadiyyatı nədir? Məsələn, indi deyirlər ki, Azərbaycanda firmalar, assosiasiyalar, banklar, daha nə bilim

nələr var. Bəli, var. Amma bunların əksəriyyəti, təkrar edirəm, əksəriyyəti Azərbaycanın iqtisadiyyatına heç bir xeyir verməyibdir. Mən bunu tam cəsarətlə deyirəm. Bunların əksəriyyəti ayrı-ayrı adamların varlanmasına gətirib çıxarmışdır. Əgər onların iqtisadiyyata xeyiri dəysəydi, bu müddətdə yeni-yeni müəssisələr tikilərdi. Bəlkə də bir neçəsi olub. Amma bazar iqtisadiyyatı yolu ilə son illərdə Azərbaycanda kapital qoyuluşu olmayıb, olubsa da, təəssüf ki, çox az miqdarda olub".

Heydər Əliyev hesab edirdi ki, müstəqil Azərbaycan dövlətinin iqtisadiyyat sahəsində strateji xətti bundan ibarətdir ki, bizdə mülkiyyət forması tədricən dəyişdirilməli, iqtisadiyyatımız bazar iqtisadiyyatı əsasında qurulmalı, təşəbbüs-karlığa geniş meydan verilməlidir. Məhz bu, iqtisadiyyatımızın strateji yoludur.

Ulu öndər həmişə nominal islahatların, yəni, islahat xatirinə islahatların aparılmasının əleyhinə olub. İslahatların keçirildiyi bir dövrdə mövcud iqtisadi strukturların və inzibati-amirlik metodlarının olduğu kimi saxlanması onun iqtisadi baxışlar sistemində yolverilməz hesab edilirdi. Əksinə, iqtisadi islahatlar həyata keçirilərkən iqtisadi qanunların və dünya təcrübəsinin əsas götürülməsini, islahatların sistemli, kompleks aparılmasını və sosial yönümlü olmasının zəruriliyini vurğulayırdı.

Məlumdur ki, dünya iqtisadiyyatında bazar iqtisadiyyatına keçidin 2 əsas yolu mövcuddur: liberal-monetarist və sosial təmayüllü modellər. Liberal-monetarist doktrinaya əsaslanan keçid modelində xüsusi mülkiyyətin şəriksiz, mütləq hökmranlığı, işgüzarlığın tam azadlığı, keçid dövründə əhalinin minimal sosial təminatı nəzərdə tutulur. İkinci variant isə bazar mexanizmlərinə əsaslanan qarışıq, səmərəli iqtisadiyyata keçilməsini nəzərdə tutur. Dövlətin keçid dövründə güclü tənzimləmə roluna üstünlük verilir, mülkiyyət formaları - xüsusi və dövlət mülkiyyəti formaları bir-birini tamamlayır, onların hüquqlarının bərabərliyi qəbul edilir. Dövlət əhalinin gəlirləri, məşğuliyyət, səhiyyə, təhsil, mədəniyyət və iqtisadiyyatın sosial müdafiəsi zəif olan digər sahələrində güclü sosial təminat siyasətini yeridir.

Birinci prezidentliyi dövründə Heydər Əliyevin konkret situasiyaya və ölkənin iqtisadi "landşaftına" hesablanmış iqtisadi konsepsiyasına əsasən islahatların üç mərhələdə həyata keçirilməsi daha məqsədəuyğun hesab edilmişdi: birinci mərhələdə güclü dövlət tənzimlənməsi ilə böhrandan çıxmaq, ikinci mərhələdə iqtisadiyyatın sabitliyini təmin etmək, üçüncü mərhələdə isə iqtisadiyyatın dirçəlişinə və yüksək xətlə inkişafına nail olmaq lazımdır.

Hər bir mərhələyə uyğun olaraq, həmin illərdə məqsədli kompleks proqramlar işlənib hazırlanmış, onların həyata keçirilmə müddətləri müəyyən edilmişdi. Kompleks proqramların məqsədi - minimum itkilərlə və sosial çaxnaşmalarsız böhrandan çıxmaq, cari tədbirlərdən perspektiv tədbirlərə adlamaq idi. Birinci mərhələni, xalq üçün ağır olduğuna görə, mümkün qədər sürətlə həyata keçirmək nəzərdə tutulurdu. Bu dövrdə reallaşdırılan sosial təmayüllü bazar iqtisadiyyatına keçid konsepsiyası dövlətin optimal tənzimləmə roluna əsaslanırdı.

Avropa dövlətlərinin iqtisadi tarixindən fərqli olaraq, Şərqdə iqtisadi quruculuq siyasətində dövlətin tənzimləyici roluna həmişə üstünlük verilmişdir. Avropa dövlətlərindən Fransa, İsveçrə və digər ölkələr Şərq üsulunu mənimsəyərək qabaqcıl iqtisadi sistem yarada bilmişlər. Heydər Əliyev ərazi və sahələrarası baxımdan balanslaşdırılmış iqtisadiyyatın yaradılmasını hələ ötən əsrin 70-80-ci illərində - milli iqtisadiyyatımızın əsaslarının yaradılması dövründə olduğu kimi, ikinci hakimiyyəti dövründə də mühüm saymışdır. Onun fikrincə, vacib məsələlərdən biri nəyi prioritet hesab etməyimizdən, nələrə üstünlük verməyimizdən ibarət idi. Bu gün iqtisadiyyatın bütün sahələrinə dövlət himayəsi əslində, mümkün deyil və bu, heç məqsədəuyğun da sayılmır. Dövlət müxtəlif mülkiyyət və təsərrüfat formalarına bərabər rəqabət mühiti formalaşdırmaqla yanaşı, respublikanın cari vəziyyəti və perspektivi üçün son dərəcə əhəmiyyətli olan iqtisadiyyatın üstün sahələrini müəyyənləşdirməli və onları himayə etməlidir. O, haqlı olaraq bu fikirdə idi ki, üstün sahələrin düzgün müəyyən edilməsindən Azərbaycanın dövlətçiliyi, iqtisadi müstəqilliyi, suverenliyi çox asılıdır.

Ulu öndərin iqtisadi siyasət proqramında neft amilinin aparıcı rolu təmin olunmaqla, digər təbii ehtiyatlardan səmərəli istifadə edilməsi bir daha göstərdi ki, ölkənin inkişafı üçün sistemli bir proqram mövcuddur. Buna görə ikinci sistemli addım - neftlə birlikdə ölkənin digər təbii ehtiyatlarının iqtisadi inkişafa xidməti strategiyası həyata keçirildi: ölkənin qızıl, mis və gümüş ehtiyatlarının xarici investorlarla birlikdə istismarı haqqında qərar verildi. Beləliklə, makroiqtisadi sabitliyin dayanıqlığı üçün neftdən başqa, ölkənin digər qiymətli təbii sərvətlərindən səmərəli istifadə olunması zərurəti yarandı.

Qeyd edək ki, iqtisadi inkişafın bu amillərinin Azərbaycanda çoxdan mövcud olmasına baxmayaraq, bəzi obyektiv və subyektiv səbəblərə görə onlardan iqtisadi inkişaf üçün maksimum istifadə edilməsinə müəyyən məhdudiyyətlər qoyulurdu. Bu amillərdən düzgün bəhrələnib ölkə iqtisadiyyatının inkişafına təkan verəcək şəxsiyyət yox idi. Siyasi aləmə Heydər Əliyevin gəlişi isə bu problemin həlli üçün böyük imkanlar açdı.

Azərbaycanda aparılan investisiya siyasəti spesifik xüsusiyyətlərə malikdir. Bunun mahiyyəti ondan ibarətdir ki, xarici investisiyaların cəlb olunmasında səmərəli iqtisadi mühitin yaradılmasından başqa, həm də

Heydər Əliyevin dünya şöhrətinin yüksək rolu olmuşdur. Belə yanaşma investisiyaların təkanverici qüvvəsini artırmaqla onlardan iqtisadi səmərənin əldə olunması müddətini yaxınlaşdırmışdır.

Beləliklə, Heydər Əliyev islahatları dünya təcrübəsində müşahidə etdiyimiz bütün proqramlardan əsas bir əlaməti ilə fərqlənir: onun islahatlar keçirdiyi ölkə dörd bir tərəfdən blokada, müharibə və sosial sarsıntılar (qaçqınlar problemi) içərisində olmasına baxmayaraq, Azərbaycanı 1993-cü ildən 1997-ci ilin iqtisadi artımına ardıcıl siyasi və iqtisadi addımlar həyata keçirməklə gətirmişdir.

Belə ki, 1993-cü ildə ölkədə sosial-siyasi vəziyyətin ağır olmasına baxmayaraq, ölkə Prezidenti tərəfindən nəticəsi sonralar bilinəcək tədbirlər görülməyə başlandı. Həmin il iqtisadiyyata investisiya qoyuluşunun azalma sürətində dəyişikliklər yarandı.

Tənəzzülün sürətini aşağı salmaq üçün Heydər Əliyev böyük səy göstərmiş və nəticədə ölkə iqtisadiyyatına 1994-cü ildə əvvəlki ildəkinə nisbətən 1,89 dəfə çox investisiya cəlb edilmişdi ki, bunun da 48 faizi xarici investisiyalar olmuşdur.

İqtisadi islahatların son nəticədə nəyə xidmət etməsi məsələsi barədə Heydər Əliyevin çoxsaylı dərin fikirlərini ümumiləşdirərkən belə bir qənaətə gəlmək olar ki, islahatların nəticələri özünü daha çox respublikanın mövcud iri istehsal müəssisələrində zəruri struktur-profil dəyişiklikləri aparılmasında, daxili bazarın ən zəruri məhsullarla doldurulmasında və ixracat potensialının artırılmasına xidmət edən yeni istehsalatların yaradılmasında, müəssisələrin modernləşdirilməsində və yenidən qurulmasında büruzə verməlidir.

Heydər Əliyevin iqtisadi baxışlarında struktur siyasətinin aşağıdakı istiqamətlərdə həyata keçirilməsi nəzərdə tutulurdu:

- maddi və maliyyə ehtiyatlarının yığılması və yenidən bölgüsü ilə "inzibati" və "bazar" üsulları arasında dəqiq hədlərin, şərtlərin qoyulması;
- ölkənin strateji mənafelərini nəzərə almaqla ixrac-idxal əməliyyatlarının tənzimlənməsi;
- xarici investisiyaların struktur islahatlarında səmərəli fəaliyyətinin təmin olunması.

Azərbaycan iqtisadiyyatının son 20 illik inkişaf tarixi bariz şəkildə göstərir ki, Heydər Əliyev məntiqindəki "müstəqillik - iqtisadiyyat" dialektikası öz dərinliyi, yeniliyi və konkretliyi ilə həmişə aktual olmuş və ölkənin müasir inkişaf gerçəkliyinin obyektiv nəzəri-praktiki təməli kimi çıxış etmişdir.

Ümumiyyətlə, Heydər Əliyevin iqtisadi baxışlarında bir-birini tamamlayan iki məqam nəzərə çarpır: 1) iqtisadiyyatın bütün sahələrində islahatlar aparmaq və bu islahatlar vasitəsilə ölkə iqtisadiyyatını inkişaf etdirmək; 2) mövcud iqtisadi potensialdan istifadənin səmərəsini təxirə salmadan yüksəltmək, onun dağılmasına yol verməmək və bu potensialın bütün Azərbaycan xalqının sərvəti kimi respublikamızın vətəndaşlarının, əhalinin bütün təbəqələrinin həyat tərzinin yaxşılaşdırılmasına yönəltmək.

Belə ki, müstəqillik şəraitində, heç kimə ümid olmadan iqtisadiyyatımızı düzgün inkişaf etdirməyi, öz sərvətlərimizdən səmərəli istifadə etməklə dövlətçiliyimizi möhkəmləndirməyi, özü də təkcə siyasi-mənəvi deyil, həm də maddi nəticələr əldə etməklə insanların həyat səviyyəsini yaxşılaşdırmağı əsas şərt sayan Heydər Əliyev deyirdi: "Müstəqillik ona görədir ki, biz öz taleyimizin sahibi olaq, öz sərvətlərimizin sahibi olaq və bu sərvətlərdən istifadə edərək xalqımız daha yaxşı yaşasın".

Azərbaycanın müstəqil dövlət kimi yaşaması və inkişaf etməsi üçün respublikanın iqtisadi potensialı əsas şərt sayılsa da (hətta Sovetlər İttifaqının dağılması prosesi zamanı dövrün böyük iqtisadçıları dəfələrlə belə fikir söyləyirdilər ki, Sovetlər İttifaqına mənsub olan yalnız Rusiya və Azərbaycan iqtisadi cəhətdən müstəqil yaşamaq imkanına malikdir), bu potensialdan səmərəli istifadənin çox mühüm əhəmiyyət kəsb etdiyi, bunun isə öz növbəsində, ancaq çox düşünülmüş, cəsarətli islahatlar yolu ilə reallaşdırılma imkanı ölkə başçısı tərəfindən dəfələrlə vurğulanmışdır.

Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, müasir şəraitdə dövlət müstəqilliyimiz üçün həyati əhəmiyyət kəsb edən mövcud iqtisadi potensialımızın böyük hissəsi Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində yaradılmışdır.

Mövcud iqtisadi potensialdan səmərəli istifadə etmək üçün hər gün, hər ay, hər rüb və hər il yorulmadan çalışmağı tövsiyə edən Heydər Əliyev bunu iqtisadiyyatın inkişafı, adamların işlə təmin edilməsi və nəticədə maliyyə vəziyyətimizin yaxşılaşdırılması, vətəndaşlarımızın həyat səviyyəsinin yüksəldilməsi və bütövlükdə, iqtisadi böhrandan çıxış üçün əsas kimi qiymətləndirirdi.

İslahatlar aparılarkən xarici ölkələrin təcrübəsindən yaradıcılıqla bəhrələnməyi daim tövsiyə etməklə yanaşı, həmin işdə kor-koranə ehkamçılığa və tələskənliyə qarşı çıxan Heydər Əliyev dəfələrlə qeyd etmişdir ki, "bu iş Azərbaycan Respublikasının iqtisadiyyatına, ənənələrinə uyğun olaraq təşkil edilməlidir" və "yerli şərait, milli xüsusiyyətlər, milli ənənələr nəzərə alınmaqla" həyata keçirilməlidir.

Keçid dövrünün Azərbaycan üçün xarakterik xüsusiyyətləri nəzərə alınmaqla iqtisadi islahatların aparılması onun müvəffəqiyyətini təmin etmişdir və burada Heydər Əliyev dühasının əvəzolunmaz rolu vardır. Belə ki, ilk növbədə, onun fövqəladə zəhməti sayəsində bağlanan neft sazişləri iqtisadiyyatın bütün sahələrinin dirçəlməsində əhəmiyyətli rol oynadı.

Respublikamızda iqtisadi islahatlar ardıcıl surətdə həyata keçirilməklə öz müsbət nəticələrini verdi. İslahatların hüquqi bazasını təşkil edən "Müəssisələr haqqında", "Səhmdar cəmiyyəti haqqında", "Torpaq islahatı haqqında", "Sovxoz və kolxozların islahatı haqqında", "Banklar və bank fəaliyyəti haqqında", "Müflisləşmə və iflas haqqında" və bir sıra digər qanunlar qəbul edilmiş, vergi qanunvericiliyinin beynəlxalq təcrübəyə uyğunlaşdırılması istiqamətində mühüm dəyişikliklər edilmiş, "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı" təsdiq olunmuşdu.

Heydər Əliyevin birbaşa göstərişi ilə müvafiq dövlət orqanları tərəfindən təcili olaraq hökumətin iqtisadi proqramı işlənib hazırlanmış və həyata keçirilməyə başlanmışdı. 1995-1996-cı illər ərzində makroiqtisadi sabitliyin təmin olunması və iqtisadiyyatda struktur dəyişikliklərinin aparılması tədbirlərini nəzərdə tutan iki hökumət proqramı müvəffəqiyyətlə həyata keçirilmişdir.

Çox böyük əhəmiyyəti olan beynəlxalq kontraktların bağlanması, dünya ölkələri ilə iqtisadi əlaqələrin genişlənməsi, Azərbaycana investisiya axınının güclənməsi, iqtisadi inteqrasiyanın dərinləşməsi və s. məhz Heydər Əliyevin müdrik daxili və xarici siyasətinin məntiqi nəticəsi kimi mümkün olmuşdur. Bütün bunlar Azərbaycanın sabahına inam yaratmış, respublikamızın ümdə problemlərinin həllinə, əhalinin rifahının yüksələcəyinə böyük ümidlər doğurmuş, xalqın iqtisadi fəallığının artmasına təsir etmişdir.

Dünya təcrübəsi göstərir ki, islahatların müvəffəqiyyəti düşünülmüş, əsaslandırılmış strategiya və taktikadan başqa, bir çox sosial-siyasi və ideoloji amillərdən də asılıdır. Azərbaycandakı iqtisadi və siyasi durum, müxtəlif siyasi qüvvələr arasındakı ziddiyyətlər nəzərə alınmaqla islahatların müvəffəqiyyətlə həyata keçirilməsini aşağıdakı şərtlər mümkün etmişdir:

- sosial-iqtisadi proseslərin dağılmış idarəolunma mexanizmlərinin təkmilləşdirilmiş formada bərpası;
- mərkəzi idarəetmə aparatı ilə ərazi bölgələri arasındakı fəaliyyət mexanizminin təkmilləşdirilməsi;
- islahatların sosial bazasının genişləndirilməsi və onun tərəfdarlarının kütləviliyinin təmin olunması.

Qeyd edilənlərə yekun vuraraq belə bir nəticəyə gəlmək olar ki, 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ümummilli liderin ikinci dəfə hakimiyyətə qayıdışından sonra müstəqil Azərbaycanın iqtisadi tərəqqisinin dayaq sütunlarını müəyyən edən milli inkişaf doktrinası hazırlandı. Heydər Əliyev ölkənin yeni makroiqtisadi siyasətinin şaxələrini dərinliklərinə qədər məharətlə tədqiq edərək, fundamental iqtisadi model hazırladı. Bu model çoxistiqamətli və uzunmüddətli dinamik inkişafın sütunlarını təşkil edən zəngin bir konsepsiya idi. Bu mükəmməl inkişaf konsepsiyasının həyata keçirilməsi dövlət suverenliyini bərpa edən Azərbaycanda demokratik dövlət quruculuğu və azad bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşdırılmasına, yeni iqtisadi dövrün tələblərinə uyğun təsərrüfat sisteminin yaradılmasına və sıçrayışlı inkişafın təmin olunmasına, kompleks islahatların reallaşmasına möhkəm əsas yaratdı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən edilmiş demokratik, dünyəvi dövlət quruculuğu və sosial yönümlü bazar prinsiplərinə əsaslanan sosial-iqtisadi inkişaf siyasəti artıq on ilə yaxındır ki, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir. Bu siyasət Azərbaycanın bölgədə iqtisadi cəhətdən lider dövlətə çevrilməsi və dünya iqtisadi sisteminə uğurla inteqrasiya etməsi, ölkədə sosial problemlərin həlli və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, yoxsulluğun sürətlə azaldılması, işsizlik problemlərinin həlli və infrastrukturun yenidən qurulması istiqamətində mühüm dövlət proqramlarının ardıcıl həyata keçirilməsi üçün möhkəm təməl yaratmışdır. 2003-cü ildən bəri ümumi daxili məhsul 3 dəfə, qeyri-neft sektorunda ümumi daxili məhsul isə 2,4 dəfə artmışdır. Son 9 ildə Azərbaycanın strateji valyuta ehtiyatları 28,8 dəfə artaraq, 46 milyard dolları ötmüşdür. Yoxsulluğun səviyyəsi 44,7 faizdən 6 faizə, işsizlik isə 5,2 faizə qədər azalmışdır. 2003-2012-ci illərdə Azərbaycan iqtisadiyyatına yönəldilən 128,3 milyard dollar investisiyadan 65,7 milyard dollarını daxili investisiyalar təşkil etmiş və xarici ticarət dövriyyəsi 6,4 dəfə artmışdır. "Qlobal Rəqabətlilik Hesabatı"nda ölkəmiz 144 ölkə arasında 46-cı, MDB məkanında isə ardıcıl olaraq dörd ildir ki, birinci yerdədir.

Ulu öndərin əsasını qoyduğu inkişaf strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyevin səyi ilə tarixən qısa müddət ərzində Azərbaycanın keçid iqtisadiyyatını arxada qoymasına nail olunmuşdur. Ölkədə həyata keçirilən mükəmməl islahatlar konsepsiyasının müəllifi kimi Prezident İlham Əliyev iqtisadi inkişafın Azərbaycan modelini yaratmışdır. Bu, ölkəmizin ümumi siyasətinin ayrılmaz tərkib hissəsi olmaqla, Azərbaycanın iqtisadi tərəqqisinə, dünya birliyində köklü mövqeyinin möhkəmlənməsinə, inkişaf etmiş güclü dövlətlər sırasında yer almasına xidmət edir.

Bu gün ölkəmizin tərəqqisinin əsasında ulu öndər Heydər Əliyevin ideyaları dayanır. Azərbaycanın indiki zənginliyi, intibahı Heydər Əliyev ideyalarının öz real təsdiqini tapması sayəsində mümkün olmuşdur. Bu gün ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması, yeni iş yerlərinin getdikcə artması və yoxsulluğun əhəmiyyətli dərəcədə azaldılması dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi siyasətin nəticəsidir. Yürüdülən uğurlu, qətiyyətli siyasət, həyata keçirilən makroiqtisadi layihələr Azərbaycan iqtisadiyyatının daha da yüksələcəyindən xəbər verir. Ayrı-ayrı dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi Azərbaycanın sosial-iqtisadi inkişafında vacib mərhələ olmaqla, ölkənin iqtisadi inkişafında və əhalinin rifah halının yaxşılaşdırılmasında getdikcə mühüm rol oynayır.

**“Azərbaycan”.-**2013.-1 may.-N 92.-S.5.

# ZAMANIN FÖVQÜNDƏ

**Əbülfəs QARAYEV,**
mədəniyyət və turizm naziri

**Bütün dünyaya möhtəşəm yeniliklər vəd edən, bəşəri sivilizasiya nümunələri ilə cəmiyyət həyatının fərqli simasını meydana qoyan XXI əsr, xüsusən, onun ikinci dekadası hiss olunmayan bir sürətlə yaşanaraq tarixə çevrilməkdədir. İki əsrin qovşağı doğma Azərbaycanı üçün tarixin heç bir mərhələsində olmadığı dərəcədə əlamətdar və dəyərlidir. Məlumdur ki, zaman-zaman qüdrətli dövlətlər yaradan Azərbaycan XIX əsrin əvvəllərində qəsbkar əllərin hökmü ilə parçalanmış, müstəqilliyindən məhrum olmuş, ayrı-ayrı dövlətlərin tərkibinə qatılmışdır. Ən mürəkkəb ictimai, siyasi şəraitlərdə, hətta fərqli iqtisadi formasiyalarda məhz geniş zəkalı insanlarının parlaq fəaliyyətləri, öndərliyi sayəsində xalqımız milli-mənəvi varlığını qoruyub saxlaya bilmiş, ötən əsrin 90-cı illərində isə müstəqilliyini əldə etmişdir.**

XX əsrin ortalarından içində yaşadığımız yüzilliyin ilk onilliyinə qədər, təqribən 50 il ərzində Azərbaycan xalqının yetişdirdiyi ən böyük tarixi şəxsiyyət olan ulu öndər Heydər Əliyev vətənimizin irili-xırdalı bəlalardan xilas olub əbədi azadlıq və inkişaf yollarına çıxmasında elə böyük xidmətlər göstərmişdir ki, onu digər şəxsiyyətlərin fəaliyyəti ilə müqayisə etmək olmaz. Heydər Əliyev tarixin qanunauyğunluğuna əsaslanaraq, mübarizələrinin bütün mərhələlərində xalq mənafeyini uca tutmaqla yüz illər boyunca natamam olan Azərbaycan həqiqətlərini, Azərbaycan amalını bütövləşdirmişdir. Belə bir bəxtəvərlik, belə parlaq tale qisməti yalnız öz dahi oğluna, onu candan sevən övladına inanan xalqlara, vətəni uğrunda hər cür zəhmətlərə qatlaşan övladlara nəsib olur.

Hələ sovet dövründə ulu öndər Heydər Əliyevin yaratdığı sağlam bünövrə imkan verdi ki, xalq müstəqillik platformalarına sahib olarkən taleyüklü vəzifələrin öhdəsindən layiqincə gələ bilsin, itkilər və fəsadlar maksimum az olsun. Heydər Əliyev Azərbaycanı böyük, işıqlı gələcəyə şərəflə aparan azadlıq yolunun memarıdır.

Məhz buna görə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" 21 yanvar 2013-cü il tarixli sərəncam imzalamışdır. Azərbaycan xalqı böyük bir məhəbbət və ehtiramla ulu öndərin adını yad edir, onun yubileyini əlamətdar qələbələrlə qarşılayır.

Sərəncamda deyilir: "Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir...

Tənəzzülə uğrayan iqtisadiyyat, sürətlə artan inflyasiya, işsizlik, ümidsizlik mühiti və digər neqativ hallarla üz-üzə qalmış Azərbaycanı Heydər Əliyev qısa bir zamanda iqtisadi və mədəni yüksəliş yolu tutan, xarici sərmayələrə açıq olan və böyük beynəlxalq layihələrə qoşulan ölkəyə çevirə bildi. Heydər Əliyevin qurduğu dövlətin iqtisadi siyasəti əhalinin sosial müdafiəsini daim diqqət mərkəzində saxlamaqla sosial yönümü ilə səciyyələnirdi. Bu gün Azərbaycan nüfuzlu vətəndaş cəmiyyətinin əsaslarının qurulduğu, müxtəlif siyasi partiyaların sərbəst fəaliyyət göstərdiyi, yüzlərlə senzurasız qəzet və jurnalın nəşr olunduğu, eləcə də çox sayda özəl telekanalların yayımlandığı və internet şəbəkəsi istifadəçilərinin sayının sürətlə artdığı bir ölkədir.

Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Onun siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. Bu uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır..."

Hər dəfə ümummilli lider Heydər Əliyevdən söhbət açılanda gözümüzün önündə tarix vərəqlənir, onun əməlləri ilə əbədiləşən illər şərəf və ləyaqət rəmzi kimi gözümüzün önündə canlanır. Bəli, o, təxminən yarım əsr bundan əvvəl Azərbaycan xalqına rəhbər seçildikdən sonra ölkənin həyatında dönüş mərhələsi başlanmış, bütün sahələrin inkişafında, xüsusilə, elm, təhsil, mədəniyyət və incəsənətin tərəqqisində böyük nailiyyətlər əldə edilmişdir. Bu dövrdə xalqımızda milli qürur, milli mənlik şüuru oyanmış, xalq öz tarixini, milli-mənəvi dəyərlərini, soy-kökünü dərindən dərk etməyə başlamış, milli ideologiyanın formalaşması mümkün olmuşdur.

Həmin dövrdə ulu öndər milli düşüncəli ziyalıları, elm, mədəniyyət, incəsənət, ədəbiyyat nümayəndələrini bir amal uğrunda səfərbər edə bilmişdir. Ulu öndərin qayğı və himayəsini daim hiss edən ziyalılar ona milli mədəniyyətimizin hamisi kimi baxırdılar.

Qeyd etmək lazımdır ki, Azərbaycan xalqının ümummilli lideri, ensiklopedik təfəkkürlü, dərin erudisiyalı müdrik şəxsiyyət olan Heydər Əliyevin milli-mənəvi və əxlaqi dəyərlərimizin ümumbəşəri ideyalarla zənginləşdirilməsində xüsusi xidmətləri vardır. Azərbaycan mədəniyyətinin böyük zaman aralığındakı tarixi inkişaf yolu bilavasitə onun adı və şəxsiyyəti ilə bağlıdır. O, xalqın qəhrəmanlıqlarla dolu tarixi keçmişinə, zəngin mənəvi dəyərlərinə, maddi-mənəvi irsinə, incəsənətinə qayğı ilə yanaşmışdır. Xalqın mənəviyyatını zənginləşdirən, onu bütün dünyada tanıdan milli mədəniyyətimizin hərtərəfli inkişafını, yüksəlişini daim diqqət mərkəzində saxlamış, ona ən ümdə vəzifəsi kimi baxmışdır.

Heydər Əliyevin zəngin və mənalı həyat yolu elə şərəfli bir tarixdir ki, gələcək nəsillər zaman-zaman bu tarixi öyrənəcək, ondan ibrət götürəcəklər. Böyük azərbaycanlı Heydər Əliyevin hələ sovet respublikamıza rəhbərlik etdiyi dövrdə milli özünüdərk və milli-mədəni intibahın yüksəlişi başlamışdır. Sovetlər ölkəsinin bəlli siyasi-ideoloji, idarəçilik çərçivələri daxilində Azərbaycanı müttəfiq respublikalar içərisində ön sıralara çıxarmaq, Azərbaycan xalqının şan-şöhrətini - tarix və mədəniyyətini, elm, sənət və ədəbiyyatını tanıtmaq azərbaycanlı adını ən yüksək səviyyədə doğrultmaq demək idi. Bu illərdə Azərbaycan ədəbiyyatında, musiqidə, kinoda, təsviri sənətdə və digər sahələrdə xalqın ruhunu, tarixini, milli-mənəvi dəyərlərini təbliğ və tərənnüm edən çoxsaylı əsərlər meydana gəlmiş, bu proses Heydər Əliyev tərəfindən bilavasitə təşviq edilmiş, dəstəklənmişdir. Keçmiş SSRİ-nin böyük şəhərlərində Azərbaycan xalqının görkəmli şəxsiyyətlərinin yubileylərinin keçirilməsi, onlara abidələrin qoyulması, küçə və meydanlara adlarının verilməsi, Bakının dünyanın müxtəlif şəhərləri ilə qardaşlaşmasını təşviq etmək, bu zəmində xaricdə Azərbaycan mədəniyyətini, incəsənətini təbliğ edən tədbirlərin təşkili - bütün bunlar Heydər Əliyevin tarixi xidmətlərinin bir hissəsidir.

Heydər Əliyev mədəniyyəti xalqın böyük sərvəti hesab edirdi. Buna görə də o, mədəni-mənəvi dəyərlərin qorunması, təbliği və yeni estetik düşüncəyə məxsus əsərlərin yaradılması üçün nəinki mümkün olanları, hətta mümkün olmayanları da edirdi. Tarixən zəngin olan Azərbaycan mədəniyyətinin bugünkü səviyyəsi ulu öndərimizin adı ilə birbaşa bağlıdır.

Böyük öndərin dediyi kimi, "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir". XX əsrdə Azərbaycan mədəniyyətinin bütün sahələrinin vüsətli inkişafı, geniş miqyasda təbliği və böyük nailiyyətləri bilavasitə Heydər Əliyevin müstəsna tarixi xidmətlərinin nəticəsi idi. Onun respublikaya rəhbərlik etdiyi 70-80-ci illərdə, xüsusən, sonrakı dövrdə mədəni və ədəbi irsimizə, təsviri sənətə, balet və teatra qayğı misilsiz dərəcədə artmışdı. Heydər Əliyevin bilavasitə himayədarlığı və gərgin səyləri nəticəsində Azərbaycan incəsənəti və təsviri sənəti bütün dünya miqyasında tanınmışdır.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə qədim yazılı abidəmiz "Kitabi-Dədə Qorqud" dastanının, Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi kimi korifey sənətkarların dünya miqyasında yubileylərinin keçirilməsi, Molla Pənah Vaqifin, Hüseyn Cavidin məqbərələrinin inşa edilməsi, İmadəddin Nəsiminin, Nəriman Nərimanovun, Cəfər Cabbarlının heykəllərinin ucaldılması, şəhidlərin xatirə kompleksinin və digər monumental sənət əsərlərinin yaradılması, ədəbiyyat və mədəniyyət xadimlərimizin ev muzeylərinin qurulması, "Gülüstan" sarayı, opera studiyası, xoreoqrafiya məktəbi kimi memarlıq abidələrinin inşası və sair əlamətdar hadisələr idi. Bütün bunlar Azərbaycan xalqının milli mədəniyyətinin misli görünməmiş yüksəlişinin təzahürü, eyni zamanda, milli-mənəvi dəyərlərin qorunması istiqamətində Heydər Əliyev faktorunun bariz nümunəsidir.

Böyük öndər sovet dövründə Azərbaycanın görkəmli mədəni irs nümunələrinə, mədəniyyət və incəsənət xadimlərinə və milli mədəniyyət müəssisələrinə xüsusi diqqət və qayğı göstərmiş, onların, kommunist ideologiyasının kosmopolit düşüncə təzyiqinə rəğmən, xalq arasında geniş təbliği və təşviqi üçün həyata keçirilən bir çox tədbirlərin təşəbbüskarı olmuşdur. Həmin illərdə Ü.Hacıbəylinin ev-muzeyinin, Nəriman Nərimanovun abidəsi və xatirə muzeyinin, Cəfər Cabbarlının abidəsi və ev-muzeyinin, Bülbülün xatirə muzeyinin, Natəvanın abidəsinin, Şuşada Vaqifin məqbərəsinin açılışı olmuş, Hüseyn Cavidin 100, Dövlət Dram Teatrının 100, S.Vurğun adına Rus Dram Teatrının 60, Dövlət Simfonik Orkestrinin 60 illik yubileyləri təntənəli şəkildə qeyd olunmuşdur.

Heydər Əliyevin xalqımızın böyük sənətkarlarına qayğısı və məhəbbəti, Azərbaycana, vətəninə nəhayətsiz sevgisindən qaynaqlanırdı. Məhz hakimiyyətinin birinci dövründə onun təqdimatı ilə Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Süleyman Rüstəm, Süleyman Rəhimov, Rəsul Rza SSRİ-nin ən yüksək fəxri adına - Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdülər. O, Azərbaycan musiqisinin dünya arenasına çıxması üçün əlindən gələni edirdi. Həmin dövrdə SSRİ-nin digər respublikaları ilə müqayisədə böyük teatrların səhnələrində,

əzəmətli konsert salonlarında Azərbaycanın görkəmli bəstəkarlarının səhnə əsərlərinin tamaşaya qoyulması, simfonik və kamera musiqisinin uğurla səsləndirilməsi bilavasitə Heydər Əliyevin dəstəyi ilə həyata keçirilirdi. Bu, Azərbaycan incəsənətinə, milli mədəniyyətə xidmətin ən böyük nümunəsi idi.

Bütün həyatını Azərbaycanın yüksəlişinə və çiçəklənməsinə sərf etmiş ümummilli lider Heydər Əliyev xalqımızın milli-mənəvi dəyərlərinin, adət-ənənələrinin qorunub saxlanması və zənginləşdirilməsinə hər zaman diqqət və qayğı ilə yanaşmışdır. Görülən bütün bu işlər milli ruhun və milli mənlik şüurunun inkişafına əsaslı zəmin yaradırdı. Burada qeyd etmək istərdim ki, milli şüur və ruhun formalaşmasında ana dili xüsusi əhəmiyyətə malikdir. Ümummilli lider Heydər Əliyev sovet hakimiyyəti dönəmində Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi üçün həqiqətən də, tarixi addımlar atmışdır. 1978-ci ildə Azərbaycan SSR-nin Konstitusiyası qəbul olunarkən, onun təşəbbüsü ilə orada Azərbaycan dilinin dövlət dili statusu öz təsbitini tapmışdır. O dövrdə müttəfiq respublikalarda əsas dövlət dili rus dili hesab olunurdu. Azərbaycanda yüksək vəzifələr tutan bir çox şəxslərin öz doğma ana dilinə xor baxdığı, onu hətta unutduğu bir zamanda, Heydər Əliyev yüksək kürsülərdən hər zaman məhz öz ana dilində mükəmməl çıxışlar edirdi. Bu, dahi rəhbər, fenomenal şəxsiyyət örnəyi idi.

Sovet İttifaqının dağılması nəticəsində 1990-1993-cü illər Azərbaycan tarixinə anarxiyanın, xaosun hökm sürdüyü bir dövr kimi daxil oldu. Xarici düşmən qüvvələr Azərbaycanı parçalamaq məqsədi ilə milli etnik münaqişələri qızışdırır və o dövrkü Azərbaycan hakimiyyətinin səriştəsizliyi, dövlət idarəçiliyində yol verilmiş kobud səhvlər isə buna münbit şərait yaradırdı. Nəticədə ölkə ağır siyasi və sosial-iqtisadi burulğana düşmüş, mədəniyyət və incəsənət sahəsi də bundan öz nəsibini almışdı.

Heydər Əliyev xalqın tələbi ilə ikinci dəfə - 1993-cü ildə hakimiyyətə gəldikdən sonra böyük cəsarətlə həyata keçirdiyi daxili və xarici siyasət nəticəsində ölkəmizdə tam sabitlik yarandı, beynəlxalq aləmdə Azərbaycanın nüfuzu xeyli artdı. Milli müstəqillik xəttini məqsədyönlü şəkildə həyata keçirən ölkəmiz vətəndaş müharibəsi və parçalanma təhlükəsindən xilas oldu, Azərbaycanın milli ordusu yaradıldı, aparıcı dünya dövlətlərinin və beynəlxalq qurumların köməyi ilə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması üçün atəşkəs elan edildi, səmərəli iqtisadi islahatlara başlanıldı, "Əsrin müqaviləsi" adlandırılan beynəlxalq neft müqaviləsi imzalandı. Bir sözlə, hüquqi və demokratik dövlət quruculuğunda böyük müvəffəqiyyətlər əldə olundu. 1995-ci ildə dövlətimizin başçısı Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış ilk müstəqil Azərbaycan Konstitusiyası ümumxalq referendumu ilə qəbul edildi, demokratik prinsiplər əsasında müstəqil Azərbaycan Respublikasının parlamenti - Milli Məclisi seçildi. Milli dövlətçilik ideyaları real həyatda öz parlaq ifadəsini tapmağa başladı. Ağır vəziyyətdə olan Azərbaycan iqtisadiyyatının və xalqın rifah halının yenidən yüksəldilməsi istiqamətində uğurlu addımlar atıldı.

Ulu öndərin o dövrdəki xidmətlərini saymaqla bitməz. Lakin onu qeyd etmək istərdim ki, ölkənin bu cür ağır vəziyyətində belə ulu öndər Heydər Əliyev Azərbaycan mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının və ümumən milli-mənəvi irsimizin inkişafını, turizm sahəsinin təşəkkül tapmasını da daim diqqətdə saxlamış, bu istiqamətdə mühüm tədbirlər görülməsinə nail olmuşdur. Onun rəhbərliyi altında dövlətin mədəniyyət və turizm siyasətinin hüquqi bazası - qanunvericilik təminatı yaradıldı. Qısa müddət ərzində mədəniyyət və turizm sahəsində 15 əsas qanun qəbul edildi. Onların sırasında "Mədəniyyət haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Kinematoqrafiya haqqında", "Memarlıq fəaliyyəti haqqında", "Kitabxana işi haqqında, "Turizm haqqında", "Milli Arxiv Fondu haqqında", "Muzeylər haqqında", "Nəşriyyat işi haqqında" və sair kimi çox vacib qanunları göstərmək olar. Eyni zamanda, mədəniyyət sahəsinin inkişafını gücləndirən dövlət proqramları qəbul edilmişdir.

Həmin dövrdə ölkəmizdə iqtisadi, siyasi və sosial sahədə olduğu kimi, mədəniyyət, təhsil və elm sahəsində də mühüm islahatlar aparılmağa, keçmiş totalitar rejimdən miras qalan neqativ hallardan yaxa qurtarılmağa başlandı. Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi dövlətçiliyimizlə yanaşı, Azərbaycan elmini, mədəniyyətini, təhsilini də dağılmaqdan və məhv olmaqdan xilas etdi.

Azərbaycan elminin, mədəniyyətinin və təhsilinin inkişafında böyük xidmətləri olan dahi rəhbər böyük islahatlar keçirdi, bu sahələrə ayrılan maliyyə vəsaitinin həcmini artırdı, onların inkişafı üçün geniş şərait yaratdı. Heydər Əliyev Azərbaycan dilinin dövlət dili statusunu öz fərmanı ilə daha da möhkəmləndirdi, onun hərtərəfli inkişafı, həyatın bütün sahələrində istifadəsi üçün geniş imkanlar açdı. Latın qrafikasına keçid kimi çox çətin və mürəkkəb proses Heydər Əliyevin böyük uzaqgörənliyi ilə çox böyük müvəffəqiyyətlə başa çatdırıldı.

Ümummilli liderin müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrdə (1993-2003) xalqımızın milli-mənəvi dəyərlərinin, adət-ənənələrinin dirçəldilməsi, xüsusən də, sovet dönəmində dağıdılan islam mədəniyyəti nümunələrinin - məscidlərin, tarixi memarlıq abidələrinin, ziyarətgahların bərpası ilə bağlı həyata keçirilən tədbirlər onun milli-mənəvi dəyərlərin qorunmasına verdiyi dəyərin bariz sübutudur. Bu istiqamətdə

atılan addımlardan biri də müstəqillik əldə edildikdən sonra dini bayramların, o cümlədən Qurban bayramının rəsmi şəkildə qeyd olunmasıdır. Heydər Əliyev bu bayramın bəşəri-mənəvi dəyərlərindən insanların faydalanmasının əhəmiyyətindən bəhs edərək deyirdi: "Müsəlmanların böyük bir təntənə ilə həmrəylik və qardaşlıq rəmzi kimi qeyd etdikləri Qurban bayramı insanlar üçün yüksək bəşəri-mənəvi dəyərlərdən faydalanmaq imkanları yaradır. İslamın insanpərvərlik, mehribanlıq və mərhəmət prinsiplərinə həmişə sadiq qalmış Azərbaycan xalqı tarixinin çətin dövrlərində belə, Qurban bayramını özünün ən əziz günlərindən biri kimi qeyd etmişdir. Dövlət müstəqilliyimizin bərpasından sonra bu günün rəsmi şəkildə bayram edilməsi xalqımızın öz milli və dini ənənələrinə sədaqətinin parlaq ifadəsidir". Ulu öndər bununla da, dini adət və ənənələrimizi milli-mənəvi dəyərlərimizdən ayırmır, onlara xüsusi önəm verirdi.

Ədəbiyyata, incəsənətə, bütövlükdə mədəniyyətə sıx bağlılığı bu böyük şəxsiyyətin fitri istedadından, yaradıcı təbiətindən və milli irsə olan diqqətindən qaynaqlanırdı. Dahi şəxsiyyət Heydər Əliyev həm Allah vergisi, həm gözəllik duyumu, həm də fəhmi ilə əsl sənəti qiymətləndirməyi bacarır, hər hansı sənət əsərinə ilk növbədə bir sənət sərrafı kimi yanaşa bilirdi. Ölkənin ictimai-siyasi, sosial-iqtisadi cəhətdən çox ağır durumda olduğu zamanlarda belə, Heydər Əliyev mədəniyyət və incəsənətin xalqlar və millətlər arasında heç bir tərcüməyə ehtiyacı olmayan ən yaxşı ünsiyyət vasitəsi kimi rolunu nəzərə alaraq, Azərbaycanın zəngin mədəniyyətinin dünyaya inteqrasiyası və onun təbliği istiqamətində mühüm addımlar atırdı.

Ulu öndər xalqımızın həm mədəni-tarixi irsinin, çağdaş mədəniyyətinin bütün dünyaya tanıdılmasına, həm də mədəni sərvətin məhz Azərbaycana məxsusluğunun təsdiqinə nail olmağa çalışırdı. Bu addımlar həm də bədxah qonşularımız tərəfindən milli-mədəni irsimizin oğurlanmasına, mənimsənməsinə, özününküləşdirilməsinə göstərilən cəhdlərin qarşısının alınmasına yönəldilmişdi.

Ulu öndər Heydər Əliyev müstəqillik illərində də mədəniyyət və incəsənətimizin inkişafına böyük qayğı göstərmiş, görkəmli mədəniyyət xadimlərinin yubileylərinin dövlət səviyyəsində qeyd olunması, onların ev-muzeylərinin bərpası, yenilərinin açılması və s. kimi bir çox mədəni təşəbbüslərin gerçəkləşməsinə rəvac vermişdir. Şübhəsiz ki, onları bir-bir sadalamaq xeyli vaxt alardı. Lakin bəzilərinin adını çəkmək kifayət edər ki, ümumi mənzərə bütün dolğunluğu ilə gözlərimizin önündə canlansın: Niyazinin ev-muzeyinin açılışı, Səttar Bəhlulzadənin 85 illik yubileyi, Cəlil Məmmədquluzadənin 125 illik yubileyi və ev-muzeyinin açılışı, Hüseyn Cavidin ev-muzeyinin yaradılması və məqbərəsinin açılışı, Əliağa Vahidin 100 illik yubileyi, Müslüm Maqomayevin 110 illik yubileyi, Məhəmməd Füzulinin 500 illik yubileyi, Səməd Vurğunun 90 illiyi, Qabilin 70 illiyi, M.Rostropoviçin 70 illik yubileyi, Tofiq Quliyevin 80 illiyi, Süleyman Rüstəmin 90 illiyi, Məhəmmədhüseyn Şəhriyarın 90 illiyi, Mirvarid Dilbazinin 85 illiyi, Azərbaycanda dünyəvi peşəkar teatrın yaradılmasının 125 illiyi, Tofiq Bayramın büstünü və adını daşıyan istirahət parkının açılışı, Naxçıvanda Cəlil Məmmədquluzadənin ev-muzeyinin açılışı, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi, Xan Şuşinskinin 100 illik yubileyi, Sankt-Peterburqda Nizami Gəncəvinin abidəsinin açılışı, Bəhruz Kəngərli muzeyinin açılışı və s. Şübhəsiz, bütün bunlar bu gün bizə çox sadə və adi bir iş kimi görünə bilər, lakin o dövrdə onlar gərgin əməyin nəticəsi olaraq reallaşmışdır.

Heydər Əliyev mədəniyyət və incəsənətimizin klassikləri ilə yanaşı, müasirlərimizin yubiley mərasimlərini, yaradıcılıq gecələrini keçirmək və belə tədbirlərdə bilavasitə, şəxsən iştirak etməklə, mədəniyyət xadimlərimizi Vətənin ən yüksək mükafatları ilə təltif etməklə, bir tərəfdən onların yaradıcılıqlarına, fəaliyyətlərinə yüksək qiymət verirdisə, digər tərəfdən mədəniyyətimizin təbliği üçün əvəzsiz xidmətlər göstərirdi. Zəngin mənəvi irsimizin qorunmasında, inkişafında, böyüməkdə olan nəsillərin milli-mədəni ənənələrimiz ruhunda tərbiyə olunmasında əvəzsiz rol oynayan əsaslı işlər bu gün mənəviyyat, mədəniyyət faktoru kimi xalqımızı öz soy-kökü ilə əbədi birləşdirib.

Heydər Əliyevi şəxsiyyət, dövlət xadimi və lider kimi dəyərləndirən aparıcı keyfiyyətlər sırasında millilik, milli köklərə bağlılıq daim öndə olub. Mədəniyyətimizin elə bir sahəsi yoxdur ki, Heydər Əliyev qayğısından kənarda qalsın. Musiqi, heykəltəraşlıq və rəssamlıq, teatr və kino, xalça sənətinin və digər sahələrin bugünkü inkişafında ulu öndərin dəyərli ideyalarının bəhrəsidir. Bununla, dahi rəhbər Azərbaycan mədəniyyətinin inkişafında yeni bir dövrün əsasını qoymuşdur.

Ulu öndər sözün əsl mənasında, Azərbaycanın ən böyük sərvəti hesab olunan milli-mənəvi dəyərlərin və mədəniyyətimizin himayədarı idi. O, azərbaycançılığı milli ideya kimi irəli sürür, mədəniyyətimizi, mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın bir parçası hesab edirdi: "Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq". Hər zaman vurğulayırdı ki, yalnız milli kimliyi bəlli olan və özünü bir millət kimi dərk edən xalqın bitkin inkişaf konsepsiyası ola bilər. Heydər Əliyev nəinki bu konsepsiyanı yaratdı, həm də çox böyük ustalıqla, səbir və təmkinlə həyata keçirdi. "Mən fəxr edirəm

ki, azərbaycanlıyam!", - deyən ümummilli lider bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durdu.

Beləliklə, xalqımızın öz milli dəyərlərinə getdikcə daha çox önəm verməsi, azərbaycançılıq ideyası ətrafında sıx birləşməsi, çoxmillətli ölkəmizin bütün sakinlərinin qarşılıqlı anlaşma, dialoq şəraitində birgəyaşayışı, dövlətimizin yüksək insani dəyərlərə, humanizm və tolerantlığa sadiqliyi qloballaşma prosesləri fonunda olduqca müsbət haldır. Heydər Əliyevin mədəniyyətimizin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunması yolunda gördüyü işlər bizlərə müasir qloballaşma prosesində milli-mənəvi dəyərlərimizi ön plana çəkməyi, öz milli kimliyimizi, dinimizi və adət-ənənələrimizi unutmamağı tövsiyə edir. Bu baxımdan Heydər Əliyevin Dünya azərbaycanlılarının I qurultayındakı nitqinin müstəsna əhəmiyyətini qeyd etməliyik. O, öz nitqində azərbaycançılıq ideyasının mahiyyətini, milli dövlətçilik ideyasının milli-mənəvi dəyərlərlə vəhdətini açıb göstərdi. O, böyük fəxr və iftixar hissi ilə bildirdi ki, bizim hamımızı birləşdirən məhz bu amildir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıqdır. Biz bu ideya ilə özümüzü dünyaya tanıdır, onu mütərəqqi dünya dəyərlərini (tolerantlıq, etnik müxtəliflik) özündə birləşdirən ideologiya kimi təbliğ edirik. Avropa ilə Asiyanın qovuşuğunda yerləşən Azərbaycan üçün bu ideologiya mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa mühüm bir körpüdür.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu gün "Azərbaycanın əsas prioritetlərindən biri milli adət-ənənələrimizin təmin olunması şərtilə dünya birliyinə inteqrasiya etməsidir". Bu inteqrasiyada Azərbaycanın öz yerini tapması, eyni zamanda, milli eyniyyətini qoruyub saxlamaq müstəsna əhəmiyyət kəsb edir ki, onu da azərbaycançılıq fəlsəfəsi təmin edir: "Azərbaycan xalqı əsrlər boyu müstəqillik həsrətində idi. Biz müxtəlif dövrlərdə başqa-başqa dövlətlərin tərkibində yaşamışıq. Amma öz milli xüsusiyyətlərimizi itirməmişik. Nəyin hesabına? Onun hesabına ki, öz ana dilimizi, mədəniyyətimizi saxlaya bilmişik, ədəbiyyatımız inkişaf edib, milli ənənələrimiz qorunub saxlanılıbdır. Budur, hər bir xalqın milli identifikasiyasını şərtləndirən əsas məsələlər".

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan dövlətinin siyasi, sosial-mədəni və iqtisadi sahələrdə həyata keçirdiyi köklü islahatlar və əsaslı tədbirlər ölkəmizin bütün sahələrdə gündən-günə güclənməsinə, o cümlədən mədəniyyət və turizm sahələrində böyük uğurlar qazanılmasına münbit şərait yaratmışdır. Azərbaycan musiqisi dünyanı fəth edir, tamaşalarımız, filmlərimiz, kitablarımız, təsviri sənət nümunələrimiz nüfuzlu beynəlxalq festival və müsabiqələrdə uğurla nümayiş etdirilir, ölkənin turizm potensialı dünyaya tanıdılır, turizm sənayesinin infrastrukturu durmadan genişləndirilir, mədəniyyət müəssisələrinin maddi-texniki bazası gücləndirilir, müasir standartlara uyğun yeni-yeni mədəniyyət ocaqları tikilib istifadəyə verilir.

Bütün bunlar əsası ulu öndər tərəfindən qoyulmuş müasir Azərbaycan dövlətinin uğurlu inkişafının göstəricisidir. Bu nailiyyətlərə görə dahi rəhbəri hər zaman fəxarət hissi ilə anırıq. Millətimizin fəxri, ən böyük azərbaycanlı Heydər Əliyevin 90 illik yubileyinin təntənə ilə qeyd olunması xalq və rəhbər birliyinə, dahi vətən oğlunun həmişəyaşar əməllərinə, Azərbaycanın şərəfli dünəninə, bugünkü qaynar, işgüzar həyatına və daha parlaq gələcəyinə dərin ehtiram nümunəsidir.

**“Azərbaycan”.-**2013.-1 may N 92.-S.4.

# HEYDƏR ƏLİYEV AZƏRBAYCAN XALQININ DAHİ MÜASİRİDİR

**Elman NƏSİROV,**
Azərbaycan Respublikasının Prezidenti
yanında Dövlət İdarəçilik Akademiyasının
Siyasi Araşdırmalar İnstitutunun direktoru,
siyasi elmlər doktoru

**Böyük xalqların–istər ingilislərin, fransızların, almanların, istərsə də italyanların dahi müasirləri yoxdur. U.Çörçil, Ş.de Qoll, K.Adenauer və De Qasperi mənsub olduqları millətlərin dünya tarixinə ötən əsrin ikinci yarısında bəxş etdikləri nadir şəxsiyyətlər idilər. F.D.Ruzveltdən sonra ABŞ-da da dahi "kəsiri" mövcuddur. Azərbaycan xalqı kiçik də olsa, bu baxımdan unikaldır. Onun dahi müasiri vardır. Həmin düha Heydər Əliyevdir. Məhz bu dahi şəxsiyyətin xarizmatik liderliyi sayəsində mövcudluğu təhlükə altında olan dövlətçiliyimiz permanent xaos və böhran məngənəsindən çıxarılmış, ümummilli fəlakətin-vətəndaş müharibəsinin qarşısı alınmış, döyüş cəbhəsində məğlubiyyətlər seriyasına son qoyulmuş və atəşkəs rejiminin tətbiqinə nail olunmuşdur.**

O, ölkə həyatının bütün sahələrində quruculuğun, davamlı inkişafın və islahatların banisi olmuşdur. İqtisadiyyatın yenidən qurulması, kənd təsərrüfatının dirçəlişi, peşəkar ordunun yaradılması, çevik və balanslaşdırılmış xarici siyasət kursunun həyata keçirilməsi, səhiyyə, elm, təhsil, mədəniyyət, incəsənət sahələrinin tərəqqisi, hüquqi və demokratik dövlət quruculuğu məhz onun adı ilə bağlıdır.

Təsadüfi deyildir ki, görkəmli filosof, akademik Ramiz Mehdiyev ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətinə rəhbərliyinin 34 ilini milli intibah dövrü kimi səciyyələndirmişdir. Bu dövr bir-birindən zaman və ictimai-siyasi formasiya baxımından fərqlənən iki mərhələ ilə (1969-1982 və 1993-2003-cü illər) xarakterizə olunsa da, əslində ulu öndərin Vətənə fədakar xidməti və hakimiyyətinin hər iki mərhələsində ölkəmizin nəhəng miqyasda nailiyyətlər qazanması baxımından oxşardırlar. Başqa sözlə, eyni missiyanın, sadəcə, iki mərhələsidirlər.

Ötən əsrin 70-ci illərinin əvvəllərində "Literaturnaya qazeta"ya verdiyi müsahibəsində "Qoy ədalət zəfər çalsın"—deyən Heydər Əliyev özünün milli intibah missiyasının 1969-1982-ci illər tarixi çərçivəsində, sözün həqiqi mənasında, ədalətin zəfər çalmasına nail oldu. Ölkədə həmin illərdə 213 yeni sənaye müəssisəsi istismara verildi. Qeyd edilən 13 il ərzində istehsal olunan sənaye məhsulu öz həcminə görə əvvəlki 50 ilə bərabər idi.

"Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır" - deyən ulu öndər Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə Azərbaycanda məktəbəqədər tərbiyə müəssisələrindən tutmuş ali məktəblərədək bütün təhsil ocaqları əvvəlki illərlə müqayisədə yeni inkişaf pilləsinə qalxdı, bu istiqamətdə aparılan ardıcıl və məqsədyönlü dövlət siyasəti Azərbaycan əhalisinin təhsil, ümummədəni və intellektual səviyyəsinin yüksəldilməsində müstəsna rol oynadı.

Heydər Əliyevin 1970-80-ci illərdə Azərbaycanda ali təhsilin inkişafı yolundakı böyük xidmətlərindən biri də yeni ali təhsil ocaqlarının yaradılması idi. Ümumiyyətlə, 1970-82-ci illərdə Azərbaycanda 5 yeni ali məktəb yaradıldı, çoxlu ixtisaslar, kafedralar, problem laboratoriyaları açıldı. Əgər 60-cı illərin sonunda respublikada 12 ali məktəb, bunlarda 105 fakültə, 450 kafedra var idisə və burada 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 17 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi. Bütün bu uğurlar da möhtərəm Heydər Əliyevin ali təhsilin inkişafına, respublikanın kadr potensialının gücləndirilməsinə vətəndaş qayğısının nəticəsində mümkün olmuşdur.

Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafında müstəsna xidmətlərindən biri də 1970-1980-ci illərdə Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və xüsusi ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan və şərait yaratması olmuşdur. Onu da qeyd edək ki, Azərbaycandan kənarda təhsil alanların milli tərkibində azərbaycanlıların sayı 1970-ci ilədək 40 faiz təşkil edirdisə, ümummilli lider Heydər Əliyevin apardığı uzaqgörən siyasət nəticəsində 1976-cı ildə müvafiq göstərici 85 faizə, 1977-ci ildə 92 faizə, 1980-ci illərin əvvəllərində isə 97, 6 faizə çatdı. Bu addımlar öz xarakteri etibarilə strateji məzmun kəsb edirdi. Daha dəqiq desək, bir tərəfdən Azərbaycanın yüksək ixtisaslı kadrlara olan ehtiyacını təmin edirdi, digər tərəfdən potensial Azərbaycan diasporunun formalaşması prosesinin konturları cızılırdı. Təsadüfi deyildir ki, bu gün MDB məkanında Azərbaycan diasporunun sosial tərkibinin

böyük bir hissəsini məhz həmin illərdə ulu öndərin xeyir-duası ilə təhsil almış insanlar təşkil edir və onlar müstəqil dövlətimizin maraqlarını təmsil olduqları ölkələrdə şərəflə qoruyurlar.

"Xalqı həmişə mənəviyyat birləşdirmişdir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha üstündür"- deyən ümummilli liderin qənaətinə görə, milli özünüdərkə xalqın yaratdığı və yaşatdığı mədəni sərvətlərə dərindən yiyələnməklə çatmaq olar. Ulu öndər başqa bir fikrində isə qeyd edirdi ki, məşhur filosof Bəhmənyarın və mütəfəkkir şair Nizaminin, riyaziyyatçı-astronom Nəsrəddin Tusinin və böyük Füzulinin, orta əsrlərin görkəmli alimi Rəşidəddinin və üsyankar şair Nəsiminin, tarixçi Abbasqulu ağa Bakıxanovun və realist yazıçı Mirzə Fətəli Axundovun, görkəmli satiriklərdən Mirzə Ələkbər Sabirin, Cəlil Məmmədquluzadənin və bir çox başqa korifeylərin adları bu mədəniyyətin çoxəsrlik tarixini bəzəyir. Biz Azərbaycan xalqının bu və ya digər görkəmli oğullarına ona görə minnətdarıq ki, onlar zülmətli irtica və özbaşınalıq şəraitində Azərbaycan xalqının ictimai fikrini, elm və mədəniyyətinin məşəlini göz bəbəyi kimi qorumuşlar.

Heydər Əliyev böyük siyasi ustalıqla 59 yaşında pantürkist-millətçi ittihamı ilə Sibirə sürgün edilən dahi Hüseyn Cavidin nəşini 100 illiyində Vətənə gətirməklə əslində milli hissə və duyğuya malik olan şəxsiyyətlərin hamısının cənazəsini, ruhunu öz doğma vətənlərinə-Azərbaycana qaytarmış oldu.

Danılmaz həqiqətdir ki, 1930-cu illərdə SSRİ-nin dövlət mükafatı "Rusca-azərbaycanca lüğət"ə verilirdisə, məhz Heydər Əliyevin qətiyyəti sayəsində 1970-ci illərdə "Azərbaycan dili" dərsliyi eyni etimada layiq görüldü. Bu mükafatların arxasında böyük siyasi mətləblər gizlənirdi. Başqa sözlə, birinci halda rus dilinin (ruslaşdırma) təbliğinə, ikinci halda isə doğma dilimizin (milliləşmənin) inkişafına görə ali mükafat verilmişdi. Bu, ulu öndərin millətin genetik kodunun mühüm komponenti hesab etdiyi milli dilə verdiyi əvəzsiz dəyər idi. Elə bu məntiqlə də Heydər Əliyev böyük səylər hesabına 1978-ci ildə qəbul edilən Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunmasına nail olmuşdu.

Bu, bir həqiqətdir ki, Sovet dövlətində bütün sahələr kimi, ordu quruculuğu prosesi də məlum siyasi-ideoloji prinsiplərə əsaslanırdı. Rəsmi Moskva milli respublikalarda, ələlxüsus müsəlman dövlətlərində milli hərbi kadrların hazırlanması yönündə cəhdləri bir qayda olaraq qısqanclıqla qarşılayır və buna mane olurdu. Müttəfiq respublikalarda hərbi tədris məktəbləri əsasən Rusiya, Ukrayna və Belorusda fəaliyyət göstərirdi.

"Bunları görəndə, düşünürdüm ki, yaxşı, biz Sovet İttifaqının bərabərhüquqlu müttəfiq respublikasıyıq, böyük səlahiyyətlərimiz var. Biz nə üçün ordudan təcrid olunuruq?" - bu sözləri mərhum Heydər Əliyev 2003-cü il aprelin 21-də, Cəmşid Naxçıvanski adına hərbi məktəbin 30 illik yubiley təntənəsində çıxış edərkən demişdi.

Ulu öndər Heydər Əliyev 1973-cü ildə böyük səylər nəticəsində belə bir məktəbin yaradılmasına nail olmuşdu. Həmin dövrdə Azərbaycan ildə təxminən 60 min gənci ordu sıralarına göndərirdi. Ancaq onların tam əksəriyyəti inşaat batalyonlarında xidmət keçirdi. Hərbi hissələrdə azərbaycanlı zabitləri isə, necə deyərlər, barmaqla saymaq olardı. Əlbəttə, indi bəziləri 1973-cü ildə Bakıda belə bir hərbi məktəbin yaradılmasını bir zavod, fabrik tikintisi qədər adi qərar hesab edə bilərlər. Amma buna nail olmaq üçün həqiqətən böyük siyasət və uzaqgörənlik lazım idi. Sovet rejiminin ən güclü vaxtlarında Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayacaq məktəbin yaradılmasına rəsmi Moskva laqeyid yanaşa bilməzdi. Təsadüfi deyil ki, həmin dövrdə Bakıya təşrif buyuran çeşidli komissiyalar Azərbaycanda belə bir hərbi məktəbə ehtiyac olmadığını "əsaslandırmağa" çalışırdılar. Amma Heydər Əliyev bu cəhdlərin qarşısını qətiyyətlə almağı bacardı.

Heydər Əliyev 1969-1982-ci illərdə Sovet İttifaqı çərçivəsində perspektiv müstəqil Azərbaycan dövləti üçün xidmət edə biləcək bütün zəruri addımları atmağa nail oldu. 1991-ci ildə müstəqilliyini bəyan edən Azərbaycan Respublikası əslində real suverenliyinə 1993-cü ildə nail oldu. Həmin il xalqın israrlı tələb və xahişindən sonra Heydər Əliyevin hakimiyyətə qayıdışı baş verdi və bununla da Azərbaycanda milli intibah dövrünün ikinci mərhəsi (1993-2003-cü illər) başlandı. Bu dövr ulu öndərin təbirincə desək, "müstəqilliyin əldə edilməsindən daha çətin olan onun qorunması və möhkəmləndirilməsi" ilə xarakterizə olunurdu. Həmin dövrdə Rusiyanın siyasi-hərbi elitasında formalaşmış mövqeyə görə, ərazisindən hərbi bazaları çıxarılan və birmənalı olaraq Qərbə inteqrasiya xəttini seçən Azərbaycan regionda Kremlin uzağagedən planları üçün birbaşa təhlükə mənbəyi rolunu oynayır. Həmin mərhələdə hakimiyyətdə olan Müsavat-AXC cütlüyünün həyata keçirdiyi səbatsız daxili və onun davamı olan xarici siyasət kursu Rusiyanın Azərbaycana münasibətdə məlum sərt mövqeyinin formalaşmasında az rol oynamadı. Nəticədə məhz həmin illərdə Rusiyanın himayəsi ilə torpaqlarımızın Ermənistan tərəfindən işğalı həyata keçirildi.

Yeri gəlmişkən, burada bir həqiqəti də xüsusi olaraq qeyd edək ki, Azərbaycan xalqının ən ağır dərdi olan Dağlıq Qarabağ problemi ilə bağlı ulu öndər Heydər Əliyevin 1969-1982-ci illərdə həyata keçirdiyi siyasətin nəticəsində bu dövrdə erməni millətçiləri bir dəfə də olsun ölkəmizə qarşı ərazi iddialarını açıq şəkildə dilə gətirməyə cəsarət etmədilər və buna imkan verilmədi. Akademik Ramiz Mehdiyev Heydər Əliyev fenomeni ilə bağlı tədqiqatlarında çox düzgün olaraq qeyd edir ki, "akademik Aqanbekyanın M.Qorbaçovun Dağlıq

Qarabağın Ermənistana birləşdirilməsinə ilkin razılıq verilməsi barədə bəyanatı və bununla da münaqişənin ilkin qığılcımının közərməsi məhz Heydər Əliyevin Siyasi Büro üzvlüyündən istefasından cəmi üç həftə sonra baş verdi".

Bundan savayı, Müsavat-AXC cütlüyünün mövcud şəraitə adekvat olmayan məqamda "Cənubi Azərbaycan" problemini qaldırması nəticəsində İranla da münasibətlər son dərəcə kəskinləşdi. Bu siyasətin nəticəsində faktiki olaraq Azərbaycan həm şimaldan, həm də cənubdan ağır təzyiq altına düşdü. ABŞ Konqresi isə Azərbaycanı dövlət səviyyəsində hər cür yardımdan məhrum edən "907-ci əlavə"ni qəbul etdi.

Bu şəraitdə dövlətçiliyimiz üçün ən təhlükəli proses separatizm və onun nəticəsində ərazi bütövlüyümüzü növbəti dəfə pozulması təhlükəsi ilə bağlı idi. Erməni işğalçılarının aramsız hücumları, Cənubda "Talış Muğan Respublikası"nın elan edilməsi, şimalda "Sadval" təşkilatının ərazi iddiaları və Gəncədə Surət Hüseynova məxsus hərbi hissənin üsyan etməsi həmin dövrdə ölkəmizin dəhşətli siyasi kataklizmlər mərhələsində olduğunu bir daha təsdiqləyir. Əslində respublikamız real vətəndaş müharibəsi astanasında idi. Ölkədə hakimiyyətsizlik və xaos hökm sürürdü. Yuxarıda qeyd etdiyimiz kimi, yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi və xahişi ilə hakimiyyətə qayıdışından sonra hədəfinə çevrildiyimiz bu ağır problemlər öz həllini tapmağa başladı. Lakin bu prosesin özü də hamar yol ilə getmədi. 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında Azərbaycanın müstəqilliyini istəməyən xarici qüvvələrin himayəsi ilə respublikamızda dövlət çevrilişlərinə cəhdlər edildi. Prezident Heydər Əliyevlə xalqın sarsılmaz birliyi bu sınaqlardan da uğurlu çıxışı təmin etdi.

Burada bir haşiyə çıxmaq istəyirik. Məlum olduğu kimi, 1997-ci ildə Prezident Heydər Əliyevin ABŞ-a ilk rəsmi səfəri zamanı ona bu dövlətin ən məşhur 4 prezidentindən biri olan (C.Vaşinqton, T.Cefferson F.D. Ruzveltlə birlikdə) Avraam Linkolnun büstü bağışlanmışdı. Bu, təsadüfi olmayıb, rəmzi mənası olan bir hadisə idi. Prezident A.Linkolun ABŞ-ın bütövlüyünün qorunması naminə separatçı Cənub ştatları ilə mübarizə aparmalı olmuş və nəticədə ölkə miqyasında 600 mindən artıq itkilərin verilməsinə baxmayaraq, dövlətçiliyin məhvinin qarşısını ala bilmişdi. Amerikalılar indiyədək seçdikləri bütün prezidentlər içərisində yalnız 4-nə heykəl qoyublar. Həmin prezidentlərdən biri də məhz A.Linkolundur. Zənnimizcə, amerikalıların Heydər Əliyevlə Avraam Linkolun arasında paralel aparmalarının motivi gün kimi aydındır. Hər ikisi öz xalqları və dövlətlərinin Xilaskarıdırlar.

1993-cü ildən etibarən ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində 1995- ci ildən başlayaraq ölkəmizin sosial-iqtisadi inkişafı və dünya iqtisadi sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlərə imza atıldı. Ən böyük nailiyyət isə ondan ibarətdir ki, bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir modeli - Azərbaycan modeli yaradıldı.

Dayanıqlı və dinamik inkişaf tempinə əsaslanan bu modeli 3 mühüm parametrlə xarakterizə etmək olar: 1) sərbəst bazar münasibətlərinə əsaslanan və özünüinkişaf qabiliyyətinə malik olan sosialyönümlü bütöv iqtisadi sistemin - müstəqil milli iqtisadiyyatın formalaşdırılması; 2) ölkədə mövcud olan təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb olunması; 3) milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyasının təmin olunması.

Azərbaycan qısa zaman kəsiyində demokratik inkişaf yolunda ciddi uğurlara imza atdı. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və siyasi iradəsinin nəticəsi olaraq qəbul edilmiş 1995-ci il Konstitusiyası və ona edilmiş əlavə və düzəlişlər ölkəmizdə hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşması prosesində müstəsna rol oynamışdır. Ölkəmizdə milli qanunvericiliyin təkmilləşdirilməsi, insan və vətəndaş hüquqlarının və azadlıqlarının etibarlı təminat mexanizmlərinin formalaşdırılması və xüsusilə də siyasi-hüquqi sistemin liberallaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

Məhz bu möhkəm özül əsasında ölkəmizdə şəxsiyyətin azadlığı və toxunulmazlığı, habelə onların hüquqi müdafiəsi qorunmuş, çoxpartiyalı sistem üçün əsaslar yaradıldılmış, siyasi plüralizm, vicdan və etiqad azadlığı, azlıqların hüquqları, qanun qarşısında bərabərlik təmin edilmişdir. Bundan savayı, Konstitusiya Məhkəməsi, üçpilləli məhkəmə sistemi, məhkəmələrin müstəqilliyi və prosedur qaydalarının şəffaflaşması təmin edilmiş, on minlərlə insan amnistiya edilmiş və böyük sayda məhkum bağışlanmış, senzura ləğv edilmiş, KİV-in azadlığı və QHT-lərin sərbəst fəaliyyəti təmin edilmişdir.

Azərbaycanın qısa zaman kəsiyində demokratik inkişaf yolunda əldə etdiyi uğurların özünü "demokratiyanın bayraqdarı" kimi təqdim edən bir sıra dövlət və təşkilatlarda adekvat olaraq qiymətləndirilməməsi, əksinə bu istiqamətdə onların real həqiqətlərə söykənməyən bəyanatlarının meydana gəlməsi acı təəssüf doğurur. Əslində ərazisinin 20 faizi Ermənistan dövlətinin işğalı altında olan və 1 milyondan artıq məcburi köçkünü və qaçqını olan gənc Azərbaycan Respublikasından əsrlərlə formalaşmış Qərb demokratiya standartlarını tələb etməyin özü düzgün deyildir. Bunun üçün ən azı onilliklər lazımdır, çünki demokratiya permanent prosesdir. Müqayisə üçün

qeyd edək ki, ABŞ-ın yarandıqdan bəri (1776-cı il) 235 illik demokratiya tarixi vardır. Təkcə Konstitusiyanı qəbul etmək üçün ABŞ-a 11 il (1787-ci il), ölkəni köləlikdən azad etmək üçün 89 il (1865-ci il, Konstitusiyaya 13-cü düzəliş), qadınlara səs hüququ vermək üçün 144 il (1920-ci il, Konstitusiyaya 19-cu düzəliş) və bütün vətəndaşları qanun qarşısında bərabər etmək üçün düz 188 illik (1964 -cü il, Konstitusiyaya 24-cü düzəliş) zaman kəsiyi lazım olmuşdur. Deməli, ABŞ-ın öz tarixi təcrübəsi göstərir ki, tam demokratik dövlət olmaq üçün Azərbaycana müəyyən vaxt lazımdır və ən əsası odur ki, respublikamızda bu istiqamətdə davamlı olaraq ciddi və konkret addımlar atılmaqdadır.

Bu prosesdə-demokratik dövlət quruculuğu istiqamətində ümummilli liderin miras qoyduğu irsin öyrənilməsi, təbliği və tətbiqində Milli Məclisin deputatı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xidmətləri müstəsna əhəmiyyət kəsb edir. Başqa sözlə, ulu öndərin irsinin öyrənilməsi istiqamətində irimiqyaslı proqramların həyata keçirilməsini dəstəkləmək, Azərbaycan xalqının rifahının yüksəldilməsinə yönəldilmiş təşəbbüsləri himayə etmək, ölkədə elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, milli-mənəvi dəyərlərə sadiq gənclərin yetişdirilməsinə və digər mühüm vəzifələrin yerinə yetirilməsinə nail olmaq ölkənin birinci xanımının rəhbərlik etdiyi təşkilatın genişmiqyaslı fəaliyyətinin prioritet istiqamətlərini təşkil edir və geniş ictimaiyyət tərəfindən olduqca yüksək dəyərləndirilir.

Azərbaycan xalqı qəlbində əbədi heykəlini qoyduğu ulu öndər Heydər Əliyevin 90 illik yubileyini onun siyasi xətti ətrafında daha sıx və monolit birlik nümayiş etdirərək qeyd edir. Bu gün ulu öndərin şah əsəri olan müstəqil Azərbaycan etibarlı əllərdədir, davamlı və dinamik inkişaf tempinə malikdir. Zəmanəmizin dühasından “Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”,-qiymətini alan Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır. O, Azərbaycanın çağdaş tarixinə yeni missiya ilə daxil olmuşdur. Cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan son 10 il ərzində özünün milli dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır. Son 10 ildə ölkəmiz öz müstəqilliyini daha da möhkəmləndirmiş, sosial-iqtisadi, siyasi-diplomatik və hərbi quruculuq sahələrində çox böyük uğurlara imza atmışdır.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında həllini gözləyən istənilən dövlət əhəmiyyətli məsələ ilə bağlı konkret proqramlar hazırlanır və onlar uğurla icra edilir. Bu gün Cənubi Qafqaz regionunun iqtisadiyyatının 80 faizdən çoxunu və demoqrafiyasının 65 faizini təmsil edən modernləşdirilmiş Azərbaycan tədricən Avropa geoiqtisadiyyatının və regional geosiyasətin intellektual və informasiya mərkəzinə, onun mühüm tərkib hissəsinə transformasiya olunur. Təsadüfi deyildir ki, beynəlxalq təşkilatların reytinq cədvəllərində Azərbaycanın mövqeyi yüksək olaraq qalmaqdadır. 2012-ci ildə dünyanın aparıcı “Fitch”, “Moody”s və “Standart and Poor”s" reytinq agentlikləri əksər ölkələrin kredit reytinqlərini aşağı saldığı haıda, ölkəmizin reytinqlərini artırmışdır. Dünya İqtisadi Forumunun “Qlobal Rəqabətlilik hesabatı”nda hesabatında Azərbaycan dünyada 46-ci, MDB məkanında isə birinci mövqedədir. Bu il aprelin 7-8-də Davos İqtisadi Forumunun Azərbaycanda keçirilməsi ölkəmizin iqtisadi nailiyyətlərinin dünya birliyi tərəfindən təsdiq edilməsi deməkdir. Ölkəmiz informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və hazırlığına görə də MDB məkanında birinci yerdədir. BMT-nin hesabatına görə, insan inkişafı indeksinə görə, ən böyük sıçrayışı da məhz Azərbaycan etmiş və “yüksək insan inkişafı” ölkələr qrupuna yüksəlmişdir.

Heç şübhəsiz, dövlət idarəçiliyi və onun müxtəlif istiqamətləri üzrə əldə edilən bu uğurlar Ermənistanın ölkəmizə qarşı xarici havadarlarının dəstəyi ilə həyata keçirdiyi işğalçılıq siyasəti olmasaydı daha böyük miqyas ala bilərdi. Dövlətimizin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial mövqeyi vardır və bu mövqe həm tarixi həqiqətə, həm də beynəlxalq hüquq normalarına əsaslanır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın ərazi bütövlüyü danışıqların predmeti olmayıb və heç zaman da olmayacaqdır. Danışıqlar prosesində konkret nəticə olmasa da, son aylar ərzində beynəlxalq vasitəçilərin münaqişə ətrafında formalaşmış status-kvonun dəyişdirilməsinin vacibliyi ilə bağlı davamlı bəyanatlar səsləndirməsi təqdirəlayiq haldır. Münaqişə dondurulmuş münaqişə deyil və status-kvonun dəyişdirilməsi ilk növbədə Azərbaycan torpaqlarının işğaldan azad edilməsini tələb edir və münaqişənin həlli yolu yalnız bundan keçir. Cənab Prezidentin təbirincə desək, iqtisadi artım, iqtisadi potensial, demoqrafik durum və əlbəttə hərbi güc münaqişənin tezliklə həll olunması üçün öz rolunu oynayır və oynayacaqdır.

20 il əvvəl Azərbaycan beynəlxalq koordinatlar sisteminin subyekti idisə, indi onun fəal aktoruna çevrilmişdir. Azərbaycan bu gün bölgədə və dünyada etibarlı tərəfdaş, dinamik inkişaf edən ölkə imicinə malikdir. Azərbaycan Respublikasının 2011-ci il oktyabr ayının 24-də BMT TŞ-ya 2012-2013-cü illər üzrə qeyri-daimi üzv seçilməsi bu həqiqəti bir daha təsdiqlənmişdir. 155 ölkənin Azərbaycanın lehinə səs verməsi əslində dünya ictimaiyyətinin ölkəmizə olan münasibətinin ifadəsidir, respublikamızın həm regionda, həm də

beynəlxalq arenada artan nüfuzunun, dünyada cərəyan edən beynəlxalq proseslərdə yaxından iştirakının və eyni zamanda, sülhün və əmin-amanlığın bərpa edilməsinə verdiyi töhfəsinin bariz nümunəsidir.

Bundan savayı, bu il fevral ayının 8-də Azərbaycanın ilk süni telekommunukasiya peykinin orbitə çıxaırması, Avropa Olimpiya Komitəsinin 2015-ci ildə Avropada I Olimpiya Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərarı tarixi hadisə və ölkəmizin böyük uğuru olmaqla yanaşı, həm də Azərbaycanın dünyada artan nüfuzunun və geniş imkanlarının beynəlxalq birlik tərəfindən qəbul edilməsinin əyani göstəricisidir.

Beləliklə, həm ölkə daxilində, həm də beynəlxalq arenada qazanılan bu möhtəşəm uğurların əsasında ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi düzgün daxili siyasət, balanslı və çevik xarici siyasət strategiyası və onun dünyanın yeni geosiyasi reallıqları nəzərə alınmaqla Prezident İlham Əliyev tərəfindən novatorcasına davam etdirilməsi kursu dayanır.

**“Xalq qəzeti”.-**2013.-3 may.-N 94.-S.6.

# HEYDƏR ƏLİYEV VƏ MÜASİR AZƏRBAYCANIN İKT SİYASƏTİ

**Əli ABBASOV,**
Azərbaycan Respublikası rabitə və
informasiya texnologiyaları naziri

**"...Texnika, elm, texnologiya çox sürətlə inkişaf edir. Ona görə gərək biz də Azərbaycanda çalışaq ki, bu inkişafda öz yerimizi tapaq, sürəti yavaş-yavaş artıraq və qabaqda gedənlərin səviyyəsində olaq..."**

**Heydər ƏLİYEV**

**"...İKT sahəsində Azərbaycan, doğrudan da, son illər ərzində böyük uğurlar əldə edibdir. Bu, həm biznes, həm zəka, intellekt sahəsidir. Eyni zamanda, innovasiya və şəffaflığa təkan verən, xidmət göstərən bir sahədir. Biz bu imkanlardan daha da geniş şəkildə istifadə etməliyik..."**

**İlham ƏLİYEV**

**Ümummilli lider Heydər Əliyev ictimai-siyasi quruluşdan asılı olmayaraq bütün dövrlərdə Azərbaycanın inkişafına çox böyük töhfələr vermişdir. Məhz onun fədakar əməyi, müdrik siyasəti, zəngin təcrübəsi sayəsində Azərbaycan Sovet İttifaqında ən qabaqcıl yerlərə çıxa bilmiş və respublikanın sosial-iqtisadi inkişafının möhkəm əsasları qoyulmuşdur. Əldə olunmuş potensial müstəqilliyin bərpa edilməsindən sonra da mühüm rol oynamışdır. Həmin dövr Azərbaycan Respublikasında bütün sahələr - iqtisadiyyat, sənaye və energetika, kənd təsərrüfatı, elm, təhsil, mədəniyyət böyük yüksəliş yaşamış və bu illər ölkə tarixində inkişaf və tərəqqi illəri kimi yadda qalmışdır. Heydər Əliyev 1982-1987-ci illərdə Sovet İttifaqının ali rəhbərliyində təmsil olunduğu vaxtlarda da doğma xalqına sədaqətlə xidmət etmiş və onun ürəyi Azərbaycanla döyünmüşdür.**

Azərbaycanda telekommunikasiya və informasiya texnologiyaları sahəsinin ardıcıl və sistemli inkişafı da məhz ulu öndərin respublika rəhbərliyi dövründə geniş vüsət almışdır. Bu sahənin sürətli inkişafının, ilk növbədə, yüksək ixtisaslı mütəxəssislərin və elmi kadrların formalaşdırılmasından asılı olduğunu yaxşı bilən Heydər Əliyevin təşəbbüsü ilə keçmiş SSRİ məkanında aparıcı elm və təhsil ocaqlarına gənclərin göndərilməsinə başlanılmış, Bakı Dövlət Universiteti, Dövlət Neft Akademiyası, Azərbaycan Texniki Universiteti, Dövlət İqtisad Universiteti, Sumqayıt Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti kimi ali təhsil müəssisələrində elektronika, avtomatika və hesablama texnikası ixtisasları üzrə maddi-texniki bazalar yaradılmışdır.

Respublikada elektron avadanlıq istehsal edən zavodlar, Kosmik Tədqiqatlar Mərkəzi, "Neftqazavtomatika" və s. kimi elmi-tədqiqat müəssisələri işə salınmış, ölkə iqtisadiyyatı üçün elmtutumlu mürəkkəb məsələlərin həlli məqsədilə ümummilli liderin birbaşa köməyi ilə Azərbaycana ilk böyük elektron hesablama maşını - "BESM-6" gətirilmiş və "Respublika avtomatlaşdırılmış idarəetmə sistemləri" - "RASU Azərbaycan" və müxtəlif kompyuter şəbəkələri quraşdırılmışdır. "AZON", "NORD" elm-istehsalat birlikləri, Radiozavod, Elektron Hesablama Maşınları Zavodu, "Peyk", "Ulduz" kimi nəhəng istehsalat komplekslərinin tikilib istifadəyə verilməsi, eləcə də elmi-tədqiqat işlərinin səmərəliliyini artırmaq və nəticələrini sınaqdan keçirmək üçün "Kristal", "Registr", "Tellur", "Kibernetika", "Biotex", "Mikroelektronika", "Kaskad" xüsusi konstruktor bürolarının fəaliyyətə başlaması da ulu öndər Heydər Əliyevin bu sahəyə verdiyi töhfələrdir.

Azərbaycan xalqının çoxəsrlik tarixində ən böyük nailiyyəti, sözsüz ki, dövlət müstəqilliyinin bərpa olunmasıdır. Lakin dövlət müstəqilliyinin bərpasından sonrakı iki il ərzində ölkə idarəolunmaz vəziyyətdə idi. Azərbaycanda hökm sürən xaos, anarxiya, iqtisadi və siyasi böhran ölkənin gələcək müstəqil həyatını sual altına qoymuşdu. Azərbaycan xalqı bu müstəqilliyi qoruyub saxlamalı, milli azadlığını əbədi, daimi etməli idi. Bu çətin imtahandan alnıaçıq, üzüağ çıxmaq üçün xalqı öz arxasınca apara biləcək liderə böyük ehtiyac yaranmışdı. Belə bir şəxsiyyət məhz ümummilli lider Heydər Əliyev idi. Ona görə də xalq böyük ümid və inamla ulu öndərə üz tutdu və onu təkidlə müstəqil Azərbaycana rəhbərliyə dəvət etdi. Əgər o vaxt Heydər Əliyev qətiyyəti, cəsarəti və siyasi nüfuzu olmasaydı, müstəqilliyimizi itirə bilərdik. Xalqın tələbi ilə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra bütün xoşagəlməz halların qarşısı alınmış və Azərbaycan inkişaf etməyə başlamışdır.

Siyasi sabitlik təmin olunandan sonra genişmiqyaslı iqtisadi və sosial islahatlar həyata keçirilmiş, bütün istiqamətlər üzrə böyük abadlıq-quruculuq işləri aparılmış, inkişaf üçün möhkəm zəmin yaradılmış, Azərbaycan demokratiyanın formalaşması və dünya birliyinə sürətli inteqrasiya yoluna qədəm qoymuşdur. Məhz Heydər Əliyev yeni neft strategiyasının nəticəsi kimi təzahür edən "Əsrin müqaviləsi"ni imzalamaqla Azərbaycanın dünya iqtisadi sistemindəki yerini müəyyənləşdirmişdir. Bazar münasibətlərinə əsaslanan iqtisadi proqramların həyata keçirilməsi, sahibkarlığın inkişafının stimullaşdırılması, təkmil qanunvericilik bazasının yaradılması ölkə iqtisadiyyatına xarici sərmayələrin axınını reallaşdırmış, qeyri-neft bölməsi sürətlə inkişaf etməyə başlamışdır.

Azərbaycanda sosial-iqtisadi həyatın bütün sahələri kimi informasiya-kommunikasiya texnologiyaları (İKT) da ulu öndər Heydər Əliyevin respublikaya ikinci rəhbərliyi dövründə uğurla inkişaf etmişdir. "Müstəqil dövlətin müstəqil rabitəsi olmalıdır" deyən ulu öndər ölkənin müstəqil telekommunikasiya, poçt və teleradio infrastrukturunun formalaşdırılmasına xüsusi önəm vermişdir. 1993-cü ilin avqustunda Heydər Əliyev Azərbaycanla Amerika qitəsi arasında birbaşa rabitənin yaradılmasına imkan verən peyk-rabitə sisteminin açılışına nail olmuş, ölkəmiz bir çox beynəlxalq təşkilatlara, o cümlədən Beynəlxalq Telekommunikasiya İttifaqına və Ümumdünya Poçt İttifaqına üzv qəbul edilmişdir. 1994-cü ildə "Bakcell", 1996-cı ildə "Azərcell" birgə müəssisələrinin yaradılması ilə ölkədə mobil rabitənin inkişafının əsası qoyulmuş, 1995-ci ildə Azərbaycanda ilk beynəlxalq telefon stansiyası, ilk elektron ATS-lər qurulmuş, 1996-cı ildən isə "AzEvroTel" və "Ultel" müəssisələri lokal telekommunikasiya şəbəkəsi üzrə xidmət göstərməyə başlamışlar.

Ölkədə internetin inkişafı da ulu öndərin səyləri nəticəsində təşəkkül tapmışdır. Azərbaycanın yüksək domen adı - ".az" domeni 1993-cü ilə rəsmi olaraq İnternetdə Adlar və Nömrələr üzrə Qeydiyyat Korporasiyası (İCANN) tərəfindən qeydiyyata alınmış, 1994-cü ildə isə Azərbaycan Elmlər Akademiyasının Avtomatlaşdırılmış İdarəetmə Sistemləri şöbəsində (indiki AMEA-nın İnformasiya Texnologiyaları İnstitutu) internetin ilk qovşağı yaradılaraq "Türksat" süni peyki vasitəsilə Türkiyənin Orta Doğu Texniki Universitetinin İnternet mərkəzinə birləşdirilmiş və beləliklə də Azərbaycan internetə çıxış əldə etmişdir. Ölkədə ilk veb sayt - www.ab.az 1995-ci ildə yaradılmışdır. Radio-televiziya sahəsinin möhkəm təməllər üzərində uğurlu inkişafı da ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 1996-cı ildə AzTV 1 milli televiziya proqramı "Türksat" süni peyki vasitəsilə yayımlanmağa başlamış, əsası 1981-ci ildə Heydər Əliyev tərəfindən qoyulan teleqüllə isə 1996-cı ildə istifadəyə verilmişdir.

Ümummilli lider Heydər Əliyev 2003-cü ilin fevralında "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiyanı (2003-2012-ci illər)" imzalamaqla sonrakı illərdə İKT sahəsində əldə edilmiş nailiyyətlərin əsasını qoymuşdur. Milli Strategiya İKT-dən istifadə və onun inkişaf etdirilməsi sahəsində müstəqil Azərbaycanın siyasətini əks etdirərək cəmiyyətin informasiyalaşdırılması üzrə əsas məqsəd və vəzifələri, prioritetləri və fəaliyyətin əsas istiqamətlərini müəyyən etmişdir. Strategiyada cəmiyyətin tələbləri, qabaqcıl dünya təcrübəsi nəzərə alınaraq ölkənin inkişafına, demokratik cəmiyyət quruculuğuna, Azərbaycanın beynəlxalq aləmə inteqrasiya olunmasına xidmət edəcək informasiya cəmiyyətinin formalaşdırılmasının yolları göstərilmişdir.

2003-cü il oktyabrın 15-də Heydər Əliyev siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyevin xalqın etimadını qazanaraq Prezident seçilməsi ilə Azərbaycanın inkişafında yeni bir mərhələ başlanmışdır. Ümummilli lider Heydər Əliyevin düşünülmüş xarici və daxili siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş və öz gözəl nəticələrini vermişdir. Bu gün Azərbaycan bütün sahələrdə etibarlı tərəfdaş kimi özünü dünya birliyinə tanıtmışdır. Ölkəmiz hazırda sürətli iqtisadi inkişaf tempinə, dayanıqlı infrastruktura və kommunikasiya imkanlarına, əlverişli investisiya mühitinə malik olan ölkə kimi dünyanın diqqətini özünə cəlb etməkdədir. Qlobal maliyyə böhranının təsirlərinə baxmayaraq, Azərbaycan öz dinamik inkişafını qoruyub saxlaya bilir, iqtisadiyyatın regional və sahəvi inkişafı reallaşır, əhalinin həyat səviyyəsi ilbəil yüksəlir. Dünyanın ən mötəbər iqtisadi qurumlarından biri olan Davos İqtisadi Forumunun ölkələrin rəqabət qabiliyyətliliyi ilə bağlı sonuncu reytinqinə əsasən Azərbaycan dünya miqyasında 46-cı, MDB məkanında 1-ci, makroiqtisadi sabitliyə görə isə dünyada 18-ci yerdədir.

Respublikamızda həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətin davam etdirilməsi, iqtisadiyyatın enerji sektorundan asılılığının azaldılması, ixracın və rəqabət qabiliyyətinin gücləndirilməsi, həyat səviyyəsinin yaxşılaşdırılması Azərbaycanın inkişaf siyasətinin əsas məqsədləridir. Məhz informasiya-kommunikasiya texnologiyaları təhsil və elmin inkişafı ilə bərabər bu hədəflərə çatmağı təmin edəcək prioritet istiqamət kimi təşəkkül tapmışdır.

Ümummilli liderin imzaladığı milli strategiyadan irəli gələn vəzifələrin həyata keçirilməsi üçün 2 məqsədli "Elektron Azərbaycan" Dövlət Proqramı (2005-2008-ci illər və 2010-2012-ci illər) qəbul edilmiş və onların yerinə yetirilməsi nəticəsində İKT sektorunun infrastrukturu müasir texnologiya və avadanlıqların tətbiqi ilə

modernləşdirilmiş, güclü qanunvericilik bazası formalaşdırılmış, davamlı və dayanıqlı inkişaf üçün etibarlı baza hazırlanmışdır.

Azərbaycanda İKT sektoru hazırda iqtisadiyyat sahəsi kimi dinamik inkişaf edir, eyni zamanda, digər sosial-iqtisadi sahələrin inkişafında və ümumilikdə cəmiyyətin həyatında fəal rol oynayır. İKT sektoru 2004-2013-cü illər üzrə hər üç ildə təxminən iki dəfə genişlənmiş, 2012-ci ildə isə sektorun artım tempi təxminən 18 faiz olmuşdur. Bu isə ümumdünya orta artım tempindən təxminən 2,5 dəfə yüksəkdir. Ölkədə biznes mühitinin yaxşılaşdırılması və rəqabətin dəstəklənməsi nəticəsində sahə üzrə əldə olunan gəlirlərin 80 faizi özəl sektorun payına düşür. Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan nüfuzlu "Doing Business-2013" hesabatında Azərbaycanın 185 ölkə arasında 67-ci yerdə qərarlaşması ölkəmizdə biznes və investisiya mühitinin əlverişliliyini bir daha nümayiş etdirir.

Azərbaycanda ən qabaqcıl texnologiyaların tətbiq edilməsi, əhaliyə yüksək keyfiyyətli xidmətlərin göstərilməsi, biznes fəaliyyətinin müasir tələblərə uyğun qurulması, cəmiyyətdə informasiya texnologiyalarından istifadəyə əlverişli şəraitin yaradılması üçün məqsədyönlü işlər görülməkdədir. Ölkəmizdə MDB regionunda ilk dəfə bütün yaşayış məntəqələri telefonlaşdırılmış və sabit telefon şəbəkəsi tam elektronlaşdırılmış, ölkə üzrə 7 rəqəmli nömrələmə sisteminə keçid təmin olunmuşdur. Mobil rabitə sahəsində də göstəricilərimiz yüksək səviyyədədir və hazırda hər 100 nəfərə 110 mobil telefon düşür. Ötən il Azərbaycan dördüncü nəsil mobil rabitə texnologiyasını tətbiq edən Avropanın 9-cu, dünyanın isə 37-ci ölkəsi olmuşdur. Mobil telefon sistemi də 2010-cu ildə MDB ölkələri arasında ilk dəfə olaraq ölkə ərazisini 100 faiz əhatə etmişdir.

Müasir İKT-nin inkişafının əsas infrastruktur göstəricisi sayılan internetin inkişafı üçün əhəmiyyətli tədbirlər həyata keçirilir. Son üç ildə Azərbaycan MDB ölkələri arasında internet istifadəçilərinin sıxlığına görə liderdir. 2012-ci ildə istifadəçilərin sayı əhalinin 70 faizinə yaxınlaşmışdır, qiymətlər isə təxminən 35 faiz azalmışdır. Ölkədə, xüsusən də regionlarda sürətli internetdən istifadənin genişləndirilməsi və keyfiyyətin yüksəldilməsi məqsədilə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Dövlət Neft Fondu tərəfindən "evlərə optika" modeli üzrə ölkənin bütün yaşayış məntəqələrinə yüksək sürətli genişzolaqlı internet xidmətlərini verən optik şəbəkənin qurulması üzrə layihə hazırlamışdır. Əsas hədəf ucqar kəndlər də daxil olmaqla, sürəti 10-100 meqabit-saniyə arasında olan genişzolaqlı internetə çıxışı təmin etmək və istifadəçilərin sayını inkişaf etmiş ölkələrin səviyyəsinə çatdırmaq, habelə elektron xidmətlərin, distant-təhsil, elektron ticarət, teletibb və digər fəaliyyət formalarının geniş tətbiqinə nail olmaqdır.

Cənubi Qafqaz, Orta və Mərkəzi Asiya ölkələri arasında rəqəmli televiziya yayımının ilk dəfə Azərbaycanda tətbiq olunmasına başlanılmış və indi ölkə əhalisinin 90 faizinin bu yayım texnologiyasına çıxış imkanı təmin olunmuşdur. Bu ildən Azərbaycan tamamilə rəqəmli yayıma keçir.

Dünya Bankı ilə birlikdə ölkənin poçt sisteminin müasir kompyuter şəbəkəsi qurulmuş, müasir idarəçilik və yeni iş prinsipləri üzrə fəaliyyəti təmin edilmiş, qeyri-ənənəvi xidmətlərin, o cümlədən bank-maliyyə, elektron dövlət xidmətləri, logistika və digər xidmətlərin göstərilməsinə başlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizin regionun informasiya tranziti mərkəzinə çevrilməsi və qlobal informasiya məkanına inteqrasiyası baxımından kosmik sənayenin formalaşdırılmasına xüsusi önəm verərək "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı"nı təsdiq etmişdir. 2010-cu il mayın 3-də ölkə Prezidentinin sərəncamı ilə Azərbaycanın telekommunikasiya peykinin orbitə çıxarılması, idarə olunması və istismar işlərinin həyata keçirilməsi üçün "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti təsis edilmişdir. Peyklərin idarə olunması üçün regional idarəetmə mərkəzi və ehtiyat idarəetmə mərkəzi yaradılmışdır. Bu mərkəzlər təkcə Azərbaycanın yox, region üzərindən uçan digər ölkələrə məxsus peyklərin də idarə olunması üçün istifadə ediləcəkdir. Azərbaycan BMT-nin uyğun komitəsində kosmik ölkələr sırasına qəbul olunmuş və kosmik fəzanın sülh məqsədlərlə istifadəsi üzrə öhdəliklər götürmüşdür.

Ölkə rəhbəri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında Azərbaycanın öz milli telekommunikasiya peykinin mövcudluğunun əhəmiyyətini vurğulayaraq demişdir: "...Doğrudan da, Azərbaycan kosmik ölkəyə çevrilir, biz kosmik sənayenin inkişafı ilə məşğuluq və bir neçə il bundan əvvəl bunu təsəvvür etmək belə çətin idi ki, vaxt gələcək və Azərbaycan kosmik ölkələrin sırasına daxil ediləcəkdir. Amma bu vaxt gəlir, yaxın günlərdə biz bu tarixi hadisəni qeyd edəcəyik. Bu, özlüyündə bütün cəhətlərdən böyük bir nailiyyətdir - həm ölkənin prestiji, həm müasirlik, yeni texnologiyaların inkişafı üçün. Bu, biznes üçün də sərfəlidir. Çünki bu, eyni zamanda, iqtisadi cəhətdən də səmərəli layihədir. Amma ən önəmlisi odur ki, bu, ölkəmizin inkişafını və niyyətini göstərir. Ümumiyyətlə, bizim dünyagörüşümüzü və siyasətimizi göstərir..."

Nəhayət, Azərbaycanın ilk telekommunikasiya peykinin istehsalı başa çatmış və peyk gözlənilən tarixdə - 2013-cü ilin fevralın 8-də Cənubi Amerikada yerləşən Fransanın Qviana Kosmik Mərkəzinin Kuru kosmodromundan geostasionar orbitə buraxılmışdır. Bu nailiyyət ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin İKT sahəsində məqsədyönlü, müdrik və uzaqgörən siyasətlərinin həyata keçirilməsi, eləcə də ölkəmizdə ən yeni texnologiyaların tətbiqi üzrə məramlarının reallaşdırılması sayəsində əldə olunmuşdur. Cənab Prezidentin də qeyd etdiyi kimi, ilk peykin orbitə buraxılması müstəqillik dövründə imza atdığımız ən böyük uğurlardan biridir, dövlətimizin qələbəsidir və hər bir Azərbaycan vətəndaşı bununla fəxr edə bilər.

Azərbaycan Respublikasının iqtisadi inkişafına, informasiya tranziti imkanlarının artırılmasına, həmçinin region ölkələri arasında sosial-iqtisadi və texnoloji inteqrasiyaya yönəlmiş "Trans-Avrasiya Super İnformasiya Magistralı" və "Avropa-Yaxın Şərq informasiya magistralı" layihələri mərhələlərlə gerçəkləşməkdədir. Ötən ilin 21 dekabr tarixində BMT-nin Baş Assambleyasında Azərbaycan Respublikası hökumətinin təşəbbüskarı olduğu "Trans-Avrasiya Super İnformasiya Magistralı vasitəsilə rabitəliliyin yaradılması" adlı qətnamənin qəbul edilməsi ilə Avrasiya regionunda "rəqəmsal fərq"in aradan qaldırılması üçün telekommunikasiya infrastrukturunun inkişaf etdirilməsi və özəl - dövlət sektorları arasında əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm addım atılmışdır.

Ümummilli lider Heydər Əliyev tərəfindən imzalanmış Milli Strategiya ilə qarşıya qoyulmuş mühüm vəzifələrdən biri ölkəmizdə "elektron hökumət"in formalaşdırılmasıdır. Prezident İlham Əliyevin bu məsələyə müstəsna əhəmiyyət verməsi və onun icrasını bilavasitə nəzarətdə saxlaması Azərbaycanda dövlət idarəçiliyi və ictimai həyatın bütün sahələrində "elektron hökumət" ideyalarının tətbiqi ilə vətəndaş-məmur münasibətlərinin yeni müstəvidə qurulmasına, şəffaflığın təmin olunmasına, informasiya tələbatının dolğun ödənilməsinə şərait yaratmışdır. Ölkə rəhbərinin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 2011-ci il 23 may tarixli fərmanının həyata keçirilməsi sayəsində dövlət orqanları tərəfindən elektron formada göstərilən xidmətlərin sayı və vətəndaşların onlardan istifadə səviyyəsi xeyli yüksəlmişdir. Azərbaycanda artıq sahibkarlıq fəaliyyəti onlayn qeydiyyata alınır, ölkəyə gətirilən və aparılan mallar elektron şəkildə bəyan edilir, daşınmaz əmlakla bağlı sənədlərin, müxtəlif fəaliyyət növlərinə lisenziyaların, icazələrin verilməsi, pensiya və ünvanlı sosial yardımların təyinatı, telefon çəkilişi və internetə qoşulmaq üçün müraciətlərin və tələb olunan sənədlərin qəbulu elektron formada həyata keçirilir və bu say gündən-günə artır.

Azərbaycanda elektron imzanın tətbiqi uğurla həyata keçirilir. Dövlət orqanlarının əməkdaşlarına, hüquqi və fiziki şəxslərə 6000-ə yaxın elektron imza verilmişdir. Dövlət orqanlarının informasiya sistemləri arasında informasiya mübadiləsinin aparılmasının təmin edilməsi və onların elektron xidmətlərindən "bir pəncərə" prinsipi əsasında istifadənin təşkili məqsədilə "elektron hökumət" portalı (www.e-gov.az) yaradılaraq əhali və iş adamlarının istifadəsinə verilmişdir. Hazırda "elektron hökumət" portalına 39 dövlət orqanının informasiya sistemi qoşulmuşdur və 182 elektron xidmət göstərilməkdədir. Azərbaycan Respublikası Prezidentinin "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə" 2012-ci il 5 fevral tarixli fərmanı elektron xidmətlərin təşkili sahəsində görülən işlərin sürətləndirilməsi, səmərəliliyinin artırılması, onlardan geniş istifadənin təmin edilməsi ilə bağlı yeni tapşırıqlar qoymuşdur və onların icrası vətəndaşlara daha təkmil, təhlükəsiz, rahat və keyfiyyətli xidmətlərin göstərilməsinə yönəlmişdir.

"Elektron hökumət" mühitində xüsusi əhəmiyyət kəsb edən informasiya təhlükəsizliyinin təmin edilməsi Azərbaycan Respublikası Prezidenti tərəfindən daim diqqət mərkəzində saxlanılır. Bu sahədə fəaliyyətin genişləndirilməsi, ölkəyə daxil olan internet trafikində qlobal kiberhücumların qarşısının alınması, informasiya proseslərinin mühafizəsi, dövlət orqanlarının informasiya resursları və sistemlərinin mümkün təhdidlərdən qorunması, kibertəhlükəsizlik sahəsində ümummilli hazırlığın və maarifləndirmənin yüksəldilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 26 sentyabr tarixli fərmanı ilə Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi və Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yanında əlaqələndirici qurum olan Elektron Təhlükəsizlik Mərkəzi yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 15 mart tarixli sərəncamı və 2012-ci il 5 noyabr tarixli fərmanı ilə İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun və "Yüksək Texnologiyalar Parkı"nın yaradılması qeyri-neft sektorunda İKT-nin qabaqcıl və aparıcı sahəyə çevrilməsinə, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan İKT sahələrinin genişləndirilməsinə, elmi tədqiqatların aparılmasına, innovasiyaların tətbiqinə, habelə bu sahədə istehsalyönümlü fəaliyyətin dəstəklənməsinə, yerli və xarici investisiyaların cəlb olunmasına xidmət edir.

Ölkənin informasiya cəmiyyəti quruculuğu istiqaməti üzrə yüksək hazırlığa malik kadr potensialının formalaşdırılmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan

Respublikasında İnformasiya Texnologiyaları Universitetinin yaradılması haqqında" 2013-cü il 1 fevral tarixli sərəncam imzalamışdır. Artıq 2013-2014-cü tədris ilindən etibarən İnformasiya Texnologiyaları Universitetində təhsil prosesinə başlanılması nəzərdə tutulmuşdur və bu universitetin fəaliyyət göstərməsi ölkədə, həmçinin regionda İKT üzrə yüksəkixtisaslı mütəxəssislərə olan ehtiyacın ödənilməsini və yeni biliklərin əldə edilməsini təmin edəcək, ölkənin elm və təhsil potensialını zənginləşdirəcəkdir.

Bütün bunlardan göründüyü kimi, Azərbaycanın gələcək uğurlu, dayanıqlı inkişafı üçün informasiya-kommunikasiya texnologiyaları sahəsi həlledici rol oynayacaqdır. Məhz İKT-nin ölkədə ümumi sosial-iqtisadi inkişafa xidmət edən sahə kimi təşəkkül tapması və bu sahədə əldə edilmiş uğurları nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2013-cü ili ölkədə "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan etmiş və bununla bağlı müvafiq sərəncam imzalamışdır. Azərbaycanda artıq İKT ili çox mühüm tarixi bir hadisə ilə - ölkəmizin ilk telekommunikasiya peykinin orbitə çıxarılması ilə əlamətdar olmuşdur. Əminik ki, biz bu il və bundan sonrakı illərdə İKT sahəsində daha da böyük nailiyyətlərə imza atacağıq.

Azərbaycanın İKT sahəsində dinamik inkişaf edən ölkəyə çevrilməsi ümummilli lider Heydər Əliyevin Milli İKT Strategiyasının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən gerçəkləşdirilməsinin nəticəsidir. Cənab Prezidentin ötən il dekabrın 29-da təsdiq etdiyi "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsasən isə bu ildən ölkəmizdə yeni bir inkişaf dövrü başlayır və İKT sahəsinin üzərinə yeni və məsuliyyətli vəzifələr düşür. Bizim hər birimiz möhtərəm Prezidentin yeni inkişaf konsepsiyasının həyata keçirilməsi, ölkəmizin dayanıqlı və davamlı inkişafı naminə bütün qüvvələrimizi səfərbər edərək əlimizdən gələni etməliyik.

**“Azərbaycan”.-**2013.-3 may.-N 94.-S.4.

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANIN MÜSTƏQİLLİYİ VƏ MİLLİ DÖVLƏTÇİLİYİ UĞRUNDA MÜBARİZƏSİ

**Əli HƏSƏNOV,**
Prezident Administrasiyasının şöbə müdiri,
YAP İdarə Heyətinin üzvü

**Azərbaycanın dövlət müstəqilliyinin əldə olunması, qorunub saxlanılması və milli dövlət quruculuğu proseslərində ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Görkəmli siyasətçi, ictimai-siyasi xadim və unikal şəxsiyyət kimi onun istər sovet, istərsə də müstəqillik dövründəki xidmətləri, Azərbaycana rəhbərliyi illərində respublikanın sosial-iqtisadi tərəqqisi istiqamətində atdığı addımlar, xalqımızın milli-mənəvi dəyərlərinin qorunması və inkişafı sahəsində gördüyü işlər haqqında indiyə qədər çoxsaylı elmi-siyasi araşdırmalar aparılmış və kitablar yazılmışdır.**

Heydər Əliyevin müstəqil və demokratik Azərbaycan uğrunda apardığı mübarizə ağır faciələrdən, siyasi, sosial-iqtisadi və mənəvi-psixoloji böhrandan və müxtəlif mərhələlərdən keçmişdir. 1980-ci ilin sonlarında SSRİ-də, keçmiş sosializm sistemində və dünyada yaşanan proseslər bir çox digər xalqlar kimi, Azərbaycan xalqının da çoxəsrlik müstəqil dövlətçilik ideyalarının reallığa çevrilməsi üçün tarixi şans yaratdı. Lakin belə əlverişli tarixi şəraitdə Azərbaycan bir çox obyektiv və subyektiv çətinliklərlə üzləşdi, həm daxili, həm də xarici aləmdən qaynaqlanan problemlər yaşadı, xalqın müstəqillik əzmi və iradəsi ciddi sınağa çəkildi. Həmin dövrdə bir yandan ermənilərin Dağlıq Qarabağa ərazi iddiaları ilə çıxış etməsi və işğalçı rejimin SSRİ rəhbərliyi tərəfindən dəstəklənməsi, digər tərəfdən respublika rəhbərliyinin səriştəsiz və məsuliyyətsiz siyasəti, milli maraqlara zidd mövqeyi, vətəndaş birliyi və effektli dövlət idarəçiliyi yarada bilməməsi ölkəni ciddi daxili böhrana düçar etmişdi. Xüsusən 1988-1993-cü illərdə getdikcə dərinləşməkdə olan ictimai-siyasi və iqtisadi böhran, vətəndaş qarşıdurması, hakimiyyət uğrunda silahlı mübarizənin qızışması, Dağlıq Qarabağ münaqişəsinin həllində rəhbərliyin cəsarətsiz mövqeyi və s. həm Azərbaycan torpaqlarının işğalına şərait yaratdı, həm də respublikada daxili siyasi böhranı dərinləşdirdi. Bundan başqa, SSRİ rəhbərliyinin 1988-ci ilin martında Dağlıq Qarabağın "sosial-iqtisadi inkişafı", 1989-cu ilin yanvar ayında isə "Muxtar vilayətdə xüsusi idarəçilik formasının tətbiqi haqqında" verdiyi qərarlar DQMV-nin faktiki olaraq Azərbaycanın tərkibindən çıxarılmasına şərait yaratdı. Respublikanın dövlət suverenliyinin və ərazi bütövlüyünün kobud şəkildə pozulmasına təminat yaradan bu qərarlar Azərbaycan KP MK-nın və Ali Sovetin Rəyasət Heyəti rəhbərliyinin razılığı ilə qəbul olunsa da, respublika əhalisinin kütləvi narazılığına səbəb oldu. Təəssüf ki, Azərbaycan hakimiyyəti xalqın tələblərini eşitmək, respublikanın ərazi bütövlüyünü qorumaq, mərkəzdən qızışdırılan təhlükəli separatçı meyillərin aradan qaldırılması istiqamətində tədbirlər görmək əvəzinə ermənilərin Dağlıq Qarabağla bağlı iddialarına etiraz edərək mübarizəyə qalxan xalqa təzyiq göstərmək yolunu tutdu. Əsas tələbi vətəndaşların təhlükəsizliyinin təmin olunması, Azərbaycan Respublikasının konstitusiya haqlarının qorunması və ərazi bütövlüyünün təmin edilməsi olan ümumxalq hərəkatına qarşı SSRİ və respublika rəhbərliyinin eyni mövqedən çıxış etməsi həmin dövrdə Bakıda və respublikanın digər ərazilərində qanlı faciələrə gətirib çıxardı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ Silahlı Qüvvələrinin hərbi kontingenti müxtəlif bəhanələrlə Bakı şəhərinə yeridildi, ermənilərin Azərbaycan xalqına, onun konstitusiya hüquqlarına, ərazi bütövlüyünə qarşı həyata keçirdikləri məqsədyönlü fəaliyyətə və SSRİ rəhbərliyi tərəfindən dəstəklənməsinə etiraz edən milyonlarla dinc insanın üzərinə ağır hərbi texnika yeritdi, yüzlərlə əliyalın vətəndaşın qanını tökdü və Bakı sakinlərini hərbi təcavüzə məruz qoydu.

Həmin dövrdə Moskvada SSRİ rəhbərliyinin təqib və təzyiqləri altında yaşamasına baxmayaraq, xalqımızın görkəmli oğlu Heydər Əliyev heç nədən qorxmadan və çəkinmədən SSRİ və respublika rəhbərliyinin antimilli qərarına özünün kəskin etirazını bildirdi. 1990-cı il yanvarın 21-də Moskvadan Azərbaycan rəhbərliyinə və xalqa göndərdiyi teleqramda 20 Yanvar hadisəsini "SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı antidemokratik, qanunazidd və düşünülmüş aksiyası" kimi qiymətləndirdi. O zamankı SSRİ rəhbəri Mixail Qorbaçovun və onun əlaltılarının istənilən an ona qarşı təxribat törədə biləcəyinə baxmayaraq, Heydər Əliyev öz həyatını təhlükə altına ataraq 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlmiş və orada Sovet ordusunun Bakıda dinc əhaliyə qarşı törətdiyi vəhşi aksiya ilə bağlı mətbuat konfransı keçirmişdir. O, mətbuat konfransında SSRİ-nin və Azərbaycanın siyasi rəhbərliyini bu faciənin əsas təqsirkarları kimi ittiham etmiş, Azərbaycanın mövcud ictimai-siyasi vəziyyətinin və siyasi idarəçiliyinin antidemokratik, hüquqi dövlət prinsiplərinə zidd olduğunu vurğulamışdır. SSRİ səviyyəsində Heydər Əliyev ilk dəfə olaraq 20 Yanvar faciəsinə siyasi qiymət verdi, faciədə əli olanların, əsas günahkarların adını çəkdi,

Azərbaycana qarşı aparılan xəyanətkar siyasətin mahiyyətini açıqladı və təqsirkarların Azərbaycan xalqı qarşısında məsuliyyət daşıyacağını bəyan etdi. Heydər Əliyevin bu bəyanatı faktiki olaraq o vaxta qədər Azərbaycanda SSRİ rəhbərliyinin Dağlıq Qarabağ məsələsində nümayiş etdirdiyi siyasətə etiraz edən və mərkəzdən "ədalətli qərar" tələb edən kortəbii xalq hərəkatının mütəşəkkilləşərək müstəqillik uğrunda milli azadlıq hərəkatına keçidi üçün əsas oldu və respublikada ciddi ümummilli mübarizə ovqatı yaratdı. Həmin dövrdə SSRİ və respublika rəhbərliyi Heydər Əliyevin dünya ictimaiyyətinə və Azərbaycan xalqına ünvanlanmış müraciətindən və səsləndirdiyi fikirlərdən o dərəcədə təşvişə düşdü ki, dərhal ona qarşı mərkəzi və yerli mətbuatda qərəzli kampaniya başladı, əleyhinə sifarişli yazılar, məqalələr dərc etdirdi.

Heydər Əliyev Moskvada M.Qorbaçovun, onun ermənipərəst ətrafının təqib və təzyiqləri altında, böyük çətinliklə 1990-cı il iyulun 20-də Bakıya yola düşdü. Azərbaycan hakimiyyəti onun respublikaya dönüşündən ciddi təşvişə düşdü və ona qarşı müxtəlif təxribatçı hərəkətlərə rəvac verdi. Siyasi hakimiyyətin təzyiq və təxribatları altında, iki gün sonra o, anadan olduğu Naxçıvana yollandı. 1990-cı ildən onun Naxçıvanda yaşaması, əhali ilə fəal təmasları, parlament seçkilərinə qatılması və qalib gəlməsi, respublika ictimaiyyətinin qabaqcıl nümayəndələrinin Naxçıvana üz tutması, Heydər Əliyevlə təmasa can atması, insanlarla günü-gündən genişlənən çoxsaylı və kütləvi görüşlər Azərbaycanda milli azadlıq hərəkatının vüsət almasına və getdikcə daha mütəşəkkilləşməsinə müsbət təsir göstərməyə başladı.

Həmyerliləri ilk gündən görkəmli dövlət xadiminin Naxçıvana gəlişini böyük sevinc hissi ilə qarşıladılar. Azərbaycanın üzləşdiyi siyasi, sosial-iqtisadi və mənəvi-psixoloji böhrandan xalqı yalnız onun xilas edə biləcəyini nəzərə alaraq 1990-cı ildə Azərbaycan SSR və Naxçıvan MSSR xalq deputatlığına namizədliyini irəli sürdülər. Heydər Əliyev 340 nömrəli Nehrəm seçki dairəsindən Azərbaycan SSR, 2 nömrəli Naxçıvan seçki dairəsindən isə muxtar respublika Ali Sovetinə xalq deputatlığına namizəd göstərildi. 1990-cı ildə Nehrəm kənd seçiciləri ilə görüşündə Heydər Əliyev özünün seçki platforması ilə çıxış edərək ilk dəfə rəsmi formada Azərbaycanın gələcək inkişafı ilə bağlı siyasi fikirlərini açıq formada bəyan etdi. O, Azərbaycanı tam müstəqil, azad, demokratik respublika kimi görmək istədiyini xüsusi vurğulayaraq, bu məqsədə gedən yolun xalqın milli iradəsindən, həmrəyliyi və vətəndaş birliyindən keçdiyini bəyan etdi.

Azərbaycanın milli müstəqilliyi və demokratik dövlət quruculuğu hərəkatı uğrunda mübarizə platforması ilə seçkilərə qatılan Heydər Əliyev hər iki dairədə xalqın yekdil dəstəyi ilə qalib gəldi.

1990-cı il noyabrın 17-də Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyasında deputatlar iclasın aparılmasını yekdilliklə görkəmli dövlət xadimi, 2 nömrəli seçki dairəsindən deputat seçilmiş Heydər Əliyevə tapşırdılar. Sessiyada Azərbaycanda gedən ictimai-siyasi proseslər, milli dövlət quruculuğu və suverenlik məsələləri geniş müzakirə olundu, tarixi əhəmiyyət kəsb edən bir sıra qərarlar verildi. Bu qərarların sırasında Naxçıvan Muxtar Respublikasının və Ali Sovetinin adından "Sovet Sosialist" sözlərinin çıxarılması, Azərbaycan Demokratik Respublikasının rəmzi olan üçrəngli bayrağın rəsmi şəkildə dövlət bayrağı kimi qəbul olunması və s. var idi. Bundan başqa, Heydər Əliyevin təkifi ilə Naxçıvan MR Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması məsələsini qaldırdı. Ali Məclisin qəbul etdiyi bu rəsmi qərarlar Azərbaycanda milli-azadlıq hərəkatının vüsət alması və müstəqil dövlətçiliyin yaranması yönündə atılan mühüm tarixi addım oldu. Ali Məclis bu qərarlarla bağlı 1990-cı il noyabrın 19-da Azərbaycanın siyasi rəhbərliyinə və rəsmi KİV-lərə müraciət etdi. Lakin bu müraciətlər haqda rəsmi mətbuatda ictimaiyyətə hər hansı bir informasiya verilmədi.

Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin ilk sessiyalarında irəli sürdüyü təkliflərdən biri 1990-cı ilin 20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi ilə bağlı oldu. O, Ali Məclisin 1990-cı il noyabrın 20-də keçirilən sessiyasında çıxış edərək 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət vermədiyinə görə Azərbaycan rəhbərliyini günahlandırdı, onu faciənin səbəblərinin üstünü ört-basdır etməkdə və təqsirkarları hələ də müəyyənləşdirməməkdə ittiham etdi. Həmin dövrdə ölkə ictimaiyyətinin ciddi tələblərinə baxmayaraq, respublika rəhbərliyi bu yöndə hansısa prinsipial tədbirlər görmək istəmirdi. Odur ki, Heydər Əliyev bu məsələnin ciddiliyini və prinsipiallığını nəzərə alıb "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar layihəsi hazırlayaraq Naxçıvan MR Ali Məclisinin müzakirəsinə təqdim etdi. Ali Məclis bu sənədi qəbul edərək 1990-cı il 21 noyabr tarixli qərarı ilə 20 Yanvar faciəsinə siyasi qiymət verdi. Qərarda SSRİ-nin və Azərbaycanın siyasi rəhbərliyinin 20 Yanvar faciəsinə görə birbaşa məsuliyyət daşıdıqları göstərildi. Sənəddə, həmçinin bundan sonra 20 Yanvar gününün hər il Naxçıvan Muxtar Respublikasında milli matəm günü kimi qeyd edilməsi qərara alınaraq, Azərbaycan SSR Ali Sovetindən xahiş edilirdi ki, yanvarın 20-si hər il Azərbaycanda milli matəm günü kimi qeyd olunsun.

Naxçıvan MR Ali Məclisinin 1990-cı il noyabrın 21-də keçirilən sessiyasında isə Heydər Əliyevin təklifi ilə Azərbaycanın ən ağrılı problemi hesab olunan Dağlıq Qarabağ münaqişəsi müzakirə olundu. Ali Məclis 1990-cı il dekabrın 14-də onun tərəfindən hazırlanmış "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində,

Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində yaranmış vəziyyətə münasibət haqqında" qərar qəbul etdi. Qərarda Azərbaycanın partiya və dövlət rəhbərliyinin DQMV-də yaranan vəziyyətin qiymətləndirilməsi və normallaşdırılması məsələsində kobud səhvlərə, yanlışlıqlara yol verdiyi, qətiyyətsizlik göstərərək respublikanın dövlət suverenliyini və ərazi bütövlüyünü, Azərbaycan xalqının şərəf və ləyaqətini müdafiə etmədiyi bildirildi.

1991-1992-ci illərdə A.Mütəllibov hakimiyyətinin dünyada gedən prosesləri, o cümlədən respublikadakı ictimai-siyasi mühiti, əhalinin müstəqillik iradəsini və s. düzgün qiymətləndirə bilməməsi M.Qorbaçov tərəfindən SSRİ-nin qorunub saxlanması ilə bağlı "yeni ittifaq müqaviləsi" layihəsinin ortaya çıxarılmasına münasibətdə də özünü göstərirdi. İmperiya iddialarından əl çəkə bilməyən SSRİ rəhbərliyinin hazırladığı bu layihə Azərbaycan xalqının milli müstəqillik və dövlətçilik ideyalarına daban-dabana zidd idi. Ən təəssüf doğuran hal isə ondan ibarət idi ki, layihə SSRİ Ali Sovetinin sessiyasında müzakirə olunarkən Azərbaycan SSR Ali Sovetinin sədri orada çıxış edərək sənədi müdafiə etmişdi.

Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin 1991-ci il yanvarın 14-də keçirilən sessiyasında bu məsələ ilə bağlı çıxış edərək yeni ittifaq layihəsinin milli maraqlara zidd olduğunu əsaslandırdı. O bildirdi ki, Naxçıvan MR Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olduğu üçün Ali Məclis bu barədə çox təfsilatlı, mükəmməl qərar qəbul etməli, onu təxirə salmadan Azərbaycanın və SSRİ-nin ali sovetlərinə göndərməlidir. Əsaslandırılmalıdır ki, hansı səbəblərə görə bu layihəni qəbul etmirik və yeni ittifaq müqaviləsinə qoşulmağın əleyhinəyik. Bu məsələ ilə bağlı Heydər Əliyev 1991-ci il fevralın 5-də Azərbaycan Ali Sovetinin birinci sessiyasında da təkidlə söz alaraq tarixi bir çıxış etdi. O öz çıxışında xüsusi uzaqgörənliklə "Kommunist Partiyası hakimiyyətinin sonunun çatdığını, SSRİ-nin tezliklə dağılacağını və respublikalarda başlanan müstəqillik müarizələrinin qalib gələcəyinin dönməz bir proses olduğunu" xüsusi vurğuladı və öz mövqeyini tutarlı faktlarla əsaslandırdı.

Ali Sovetin 1991-ci il martın 7-də keçirilən sessiyasında Heydər Əliyev növbəti dəfə Azərbaycanın milli müstəqillik və suverenliyi məsələsinə qayıtdı, müstəqilliyin tarixi şans olduğunu və vacibliyini, ona çatmağın yollarını, əsas vasitələrini, demokratik dövlət quruculuğunun prinsiplərini göstərən tarixi çıxış etdi. O öz çıxışında onu da vurğuladı ki, "respublika rəhbərliyinin imzalamağa hazırlaşdığı "yeni ittifaq müqaviləsi" Azərbaycan üçün tam yararsızdır... Mən yeni ittifaqa daxil olmağın və bunun üçün hər hansı referendum keçirməyin əleyhinəyəm. Bu, bütün seçicilərimin, deputatı olduğum Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının yekdil fikridir. Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam. Azərbaycan xalqı artıq bu yola çıxmışdır".

Dövlət müstəqilliyinin təmin olunması ilə bağlı Heydər Əliyevin bu çıxışı və sonrakı fəaliyyəti, uzaqgörən çağırışları həmişə olduğu kimi, yenə də Azərbaycan xalqı tərəfindən xüsusi rəğbətlə, SSRİ və respublika rəhbərliyi tərəfindən isə ciddi hiddətlə qarşılandı. Rəsmi KİV-lərdə Azərbaycanın müstəqil dövlətçiliyinə tərəfdar çıxanlara qarşı kampaniya başladılar, onları tənqid edir, yeni ittifaq müqaviləsinin guya çox əhəmiyyətli olması haqqında birtərəfli təbliğat aparırdılar. Siyasi hakimiyyət milli mənafelərin və xalqın etirazlarının əksinə olaraq, 1991-ci il martın 17-də "SSRİ-nin qorunub saxlanması ilə bağlı" Azərbaycanda saxta bir referendum da keçirdi və guya əhalinin 98 faizinin ittifaqın saxlanılmasına tərəfdar çıxması haqda mərkəzə yalançı məlumat verdi. Amma sonrakı hadisələr göstərdi ki, 1990-cı ildən başlayaraq SSRİ-nin və kommunist idarəçiliyinin perspektivsizliyi, Azərbaycanın müstəqil, demoktatik dövlət qurmasının mümkünlüyü və mütləqliyi haqqında Heydər Əliyevin uzaqgörən bəyanatları, bunu əsaslandıran siyasi baxışları öz işini görmüş, gələcək proseslərin gedişinə həlledici təsir göstərmişdir.

1990-cı illərinin əvvəllərində Azərbaycanın kommunist rəhbərliyinin müstəqillik və milli dirçəliş ideyalarına zidd mövqe tutmaqda davam etməsi, ölkənin hələ də Kommunist Partiyası tərəfindən idarə edilməsi daxili ictimai-siyasi gərginliyi getdikcə artırırdı. Xüsusən 20 Yanvar hadisəsindən sonra respublikanın kommunist rəhbərliyinə və bütövlükdə Kommunist Partiyasına ölkə əhalisinin münasibəti həddən artıq mənfi idi. Lakin mövcud hakimiyyət nə əhalinin münasibətini, nə də bütövlükdə sovet məkanında gedən proseslərin axarını nəzərə almaq istəmir və respublikada kommunist rejimini təkidlə sürdürməyə çalışırdı. 1991-ci il avqustun 19-da Moskvada baş verən "Avqust qiyamı"ından sonra M.Qorbaçov öz fərmanı ilə SSRİ Kommunist Partiyasının fəaliyyətini dayandırsa da, Kommunist Partiyasının tərkib hissəsi olan Azərbaycan Kommunist Partiyası öz fəaliyyətini dayandırmaq istəmirdi. Lakin Naxçıvan MR Ali Məclisinin hələ 1991-ci il avqustun 26-da keçirilən sessiyasında Naxçıvan Vilayət Partiya Komitəsi və onun bütün strukturları ləğv olunmuşdu. Ali Məclis Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il sentyabrın 4-də növbəti qətiyyətli addım ataraq "Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında" qərar qəbul etdi.

Heydər Əliyevin istəyi o idi ki, ermənilərin xalqımıza qarşı ərazi iddiaları irəli sürdükləri və bu məqsədlə hərbi təcavüzə əl atdıqları bir vaxtda Azərbaycanda daxili qarşıdurmanın aradan qaldırılması, vahid ideya əsasında milli birlik və həmrəyliyin yaradılması, bütün əhalinin vahid məqsəd - müstəqil dövlətçilik və demokratik idarəçilik ətrafında birləşdirilməsi vəzifəsi öz həllini tapmalıdır. Bunun üçün ilk növbədə keçən illərdə xalqın gözündə özünü ifşa etmiş Azərbaycan Kommunist Partiyası buraxılmalı və onun yerində milli etimad hökuməti yaradılmalıdır. Bu məqsədlə Heydər Əliyev Ali Sovetin 1991-ci il avqustun 29-da keçirilən sessiyasında yenidən söz alaraq çıxış etdi. O bildirdi ki, Azərbaycan Kommunist Partiyası dərhal hakimiyyətdən getməlidir.

Təbii ki, Heydər Əliyevin belə qətiyyətli fikirlər irəli sürməsi bütün xalqın istəyinə tam cavab versə də, o zamankı siyasi hakimiyyətin maraqlarına qətiyyən uyğun deyildi. Həmin dövrdə öz seçicilərinin iradəsinin əleyhinə gedərək mövcud iqtidara yarınan bəzi deputatlar Ali Sovetin sessiyalarında Heydər Əliyevin çıxış etməsinə imkan verməməyə çalışırdılar. Amma sonrakı hadisələr göstərdi ki, respublika rəhbərliyi bu müdrik siyasətçinin getdikcə liderə çevrildiyi Azərbaycan xalqının milli azadlıq mübarizəsinin, müstəqil və demokratik dövlətçilik hərəkatının qarşısında tab gətirmək iqtidarında deyil. Respublika Ali Sovetinin 1991-ci il avqustun 30-da "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" bəyannamə qəbul etmək məcburiyyətində qalması faktı bu həqiqəti bir daha sübut etdi.

Müstəqilliklə bağlı bəyannamə qəbul etməkdən uzağa getmək istəməyən o zamankı Azərbaycanın kommunist rəhbərliyi Heydər Əliyevin siyasi qətiyyəti və günü-gündən xalq arasında, milli-azadlıq hərəkatında artan nüfuzundan ciddi təşviş keçirir, görkəmli şəxsiyyəti ləkələmək üçün müxtəlif təxribatlara əl atırdı. Lakin bütün bu cəhdlər əbəs idi və respublika rəhbərliyi öz qərəzli niyyətinə nail ola bilmədil, əksinə, Heydər Əliyev 1991-ci il sentyabrın 3-də muxtar respublika deputatlarının yekdil qərarı ilə Naxçıvan MR Ali Məclisinin sədri seçildi. Bu hadisə bir tərəfdən Azərbaycan xalqında böyük sevinc hissi yaradaraq, onları Heydər Əliyevin apardığı müstəqil və demokratik dövlətçilik mübarizəsinə, ümummilli maraqların təmin olunması yolunda həyata keçirdiyi respublika səviyyəli tədbirlərə qoşulmağa ruhlandırdı, digər tərəfdən respublika rəhbərliyini Heydər Əliyevə qarşı daha kəskin addımlar atmağa, Naxçıvan MR Ali Məclisinin normal fəaliyyət göstərməsinə bütün vasitələrlə maneçilik törətməyə sövq etdi. Siyasi hakimiyyət tərəfindən idarə olunan bir çox qüvvələr ictimai rəydə belə bir fikir formalaşdırmağa çalışırdılar ki, guya Ali Məclis Naxçıvan Muxtar Respublikasını Azərbaycandan təcrid edir, respublikanın tərkibindən çıxmaq haqqında qərar qəbul etməyə hazırlaşır və s.

Amma çox keçmədi ki, pespublikanın siyasi hakimiyyəti Heydər Əliyevin və Azərbaycan xalqının müstəqil və demokratik dövlətçilik uğrunda apardıqları mübarizənin qarşısında tab gətirə bilməyərək,1991-ci il oktyabrın 18-də, nəhayət ki, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul edilməsinə razılıq verdi.

Bunun ardınca, 1991-ci il dekabrın 5-də Naxçıvan MR Ali Məclisi qərar verərək həmin il martın 17-də SSRİ-nin qorunub saxlanması ilə əlaqədar Azərbaycanda keçirilən referendumun nəticələrini saxta elan etdi. Ali Məclisin atdığı mühüm addımlardan biri də dünya azərbaycanlılarının həmrəylik günü ilə bağlı idi. Belə ki, Ali Məclisin 1991-ci il 16 dekabr tarixli qərarı ilə 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik və Milli Birlik Günü elan olundu, həmin günün hər il bayram edilməsi nəzərdə tutuldu.

Həmin dövrdə müxtəlif ictimai-siyasi qüvvələrin hakimiyyət uğrunda ölüm-dirim mübarizəsi aparması və öz məqsədlərinə çatmaq üçün silahlı qarşıdurmalar, vətəndaş müharibəsi törətməsi Azərbaycanı ciddi təhlükə ilə üz-üzə qoymuşdu. Ölkə əhalisi yaranmış ağır və mürəkkəb vəziyyətdən çıxış yolunu yalnız müdrik dövlət xadimi Heydər Əliyevi ali hakimiyyətə dəvət etməkdə görürdü və bu istiqamətdə müxtəlif təşəbbüslərlə çıxış edirdi. Lakin respublika rəhbərliyi bu müdrik liderin hakimiyyətə gedən yolunu bağlamaq üçün əvvəlcədən düşünülmüş bir çox tədbirlər görmüşdü. Belə ki, "Azərbaycan Respublikasının prezident seçkiləri haqqında" qanuna son beş il ərzində respublikada yaşamayan və yaşı 65-dən yuxarı olan şəxslərin namizəd verilməsini qadağan edən maddə əlavə etmişdi. Əslində bu qanun yalnız Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsinin qarşısını almaq üçün məqsədli şəkildə atılan addım idi. Buna etiraz əlaməti olaraq 1992-ci il aprelin 25-30-da Bakıda Ali Sovetin binası qarşısında keçirilən kütləvi xalq mitinqlərində çıxış edənlər Heydər Əliyevin respublika prezidentliyinə namizədliyinin irəli sürülməsini məhdudlaşdıran maddənin qanundan çıxarılmasını, Milli Liderə qarşı təzyiq və təqiblərin dayandırılmasını, Ali Sovetin sessiyasının çağırılmasını və təcili tədbirlər görülməsini tələb edirdilər. Analoji mitinq 1992-ci il mayın 5-də Naxçıvan MR-də, sonrakı aylarda Azərbaycanın digər bölgələrində də keçirildi. 1992-ci il mayın 18-də Ali Sovetin növbədənkənar sessiyasında parlamentin yeni sədrini seçmək məsələsinin müzakirəsi zamanı bir qrup deputat tərəfindən Heydər Əliyevin namizədliyi irəli sürüldü. Lakin AXC-Müsavat qüvvələrini və keçmiş kommunist nomenklaturasını təmsil edən bir qrup şəxs bu təkliflərin həyata keçirilməsinə cidd-cəhdlə mane oldu. Çünki onlar Heydər Əliyevin xalq arasındakı yüksək nüfuzunu, zəngin idarəçilik təcrübəsini qısqanclıqla qarşılayır və hesab

edirdilər ki, onun Azərbaycanın rəhbərliyinə gəlişi onların hakimiyyətə yolunu bağlayacaq. Təəssüf ki, həmin dövrdə bu birliyin antiəliyev və antixalq mövqeyi parlamentdə üstünlük təşkil etdi.

1992-ci ilin mayında Azərbaycanın siyasi hakimiyyətində dəyişiklik baş verdi və AXC-Müsavat qüvvələri kommunist hakimiyyətini əvəz etdi. Bu dövrdə ermənilər Dağlıq Qarabağ və Azərbaycanın digər bölgələrində işğalçılıq siyasətini günü-gündən genişləndirirdilər. Naxçıvanın Ermənistanla sərhəd kəndlərində vəziyyət xüsusilə ağır idi. Ermənilərin kəndlərə hücumları intensivləşir, doğma torpaqları uğrunda mübarizə aparan yerli insanlar şəhid olurdu. Azərbaycanın yeni hakimiyyəti Naxçıvanın müdafiəsinə kömək etmək əvəzinə yerli rəhbərliyə qarşı siyasi təzyiqləri artırır, ictimai-siyasi prosesləri nəzarətdən çıxarmağa cəhd edirdi. Mərkəzi hakimiyyətin yarıtmaz siyasəti və idarəçiliyi fonunda xalq arasında Heydər Əliyevə günü-gündən Milli Lider və XİLASKAR kimi baxırdılar. Xüsusən tanınmış ziyalılar A.Mütəllibov dövründə olduğu kimi, yeni iqtidarın da antixalq və antidövlət siyasətinə, Naxçıvan MR rəhbərliyinin qərarlarına saygısız yanaşmasına, blokadada olan Naxçıvana təzyiq göstərməsinə etiraz edir, Heydər Əliyevlə həmrəy olduqlarını bildirir, Azərbaycanın müstəqilliyi və suverenliyi naminə Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi tarixi qərarları yüksək qiymətləndirir, muxtar respublikada gedən demokratik proseslərə böyük dəyər verirdilər. Naxçıvanın blokadaya salınmasına baxmayaraq və siyasi hakimiyyətin qərəzli münasibətinə fikir vermədən Heydər Əliyev muxtar respublikanın sosial-iqtisadi böhran vəziyyətindən çıxarılması üçün mühüm addımlar atırdı. Onun həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində Naxçıvanın ermənilər tərəfindən işğalının qarşısı alındı, əhali aclıqdan və qışın soyuğunda donmaqdan xilas edildi, MR-in sosial-iqtisadi həyatı öz ahəngi ilə idarə olundu. Türkiyə Cümhuriyyəti tərəfindən Azərbaycanla Türkiyə arasında sərhəd keçidi yaratmaq məqsədilə Araz çayı üzərində körpü tikildi və 1992-ci il mayın 28-də onun rəsmi açılışı oldu.

Heydər Əliyev İran İslam Respublikası ilə də müxtəlif sahələri əhatə edən əməkdaşlıq münasibətləri yaratdı və blokadada olan muxtar respublikanın təhlükəsizliyinin təmin olunması, əhalinin rifahının yaxşılaşdırılması istiqamətində onun imkanlarından istifadə etdi. Heydər Əliyevin əldə etdiyi bütün bu uğurlar onun xalq arasındakı nüfuzunu daha da artırır, respublika vətəndaşları bu müdrik dövlət xadiminin Azərbaycan rəhbərliyinə gəlməsinin zəruri olması ilə bağlı çoxsaylı müraciətlər edir və ayrı-ayrı təşkilati tədbirlər həyata keçirirdi. AXC-Müsavat hakimiyyəti isə ona qarşı qərəzli mövqeyini daha da sərtləşdirirdi. Onların Naxçıvandakı tərəfdarları Ali Məclisin işini pozmağa cəhd göstərir, öz çıxışlarında muxtar respublikanın ali hakimiyyət orqanının qanuni seçilmiş sədrini antikonstitusion, zorakı yollarla vəzifəsindən kənarlaşdırmağa çalışır, ona qarşı müxtəlif qanunsuz aksiyalar həyata keçirirdilər. AXC-Müsavat hakimiyyəti 1992-ci il oktyabrın 24-də zorakı vasitələrlə Naxçıvan MR-də dövlət çevrilişinə cəhd göstərdi. AXC-yə məxsus yerli silahlı dəstələr mərkəzi hakimiyyətin dəstəyi ilə Naxçıvan MR Daxili İşlər Nazirliyinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binalarını zəbt edib, xidməti vəzifə başında olan insanları fiziki və mənəvi təzyiqlərə məruz qoydular. Sözsüz ki, mərkəzi hakimiyyətin belə qanunazidd əməllərə əl atması Heydər Əlyevi milli maraqlara söykənən prinsipial və qətiyyətli mövqeyindən çəkindirə bilməzdi. Naxçıvanda dövlət çevrilişi cəhdi 1992-ci il oktyabrın 25-də Ali Məclisin fövqəladə sessiyasında müzakirə edildi və dövlət çevrilişinə cəhd kimi qiymətləndirildi.

Təbii ki, AXC-Müsavat hakimiyyətinin respublikanı gündən-günə uçuruma yuvarlayan yarıtmaz siyasət aparmaqda davam etməsinə Azərbaycan vətəndaşları biganə qala bilməzdi. Bu məqsədlə 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalı "Səs" qəzeti vasitəsilə Heydər Əliyevə müraciət etdi. Müraciətdə Azərbaycan hakimiyyətinin səriştəsizliyi ucbatından respublikada siyasi hərc-mərcliyin getdikcə dərinləşməsi və ictimai-siyasi proseslərin nəzarətdən çıxması, cəmiyyətdə cinayətkarlığın artması, vətəndaş qarşıdurmasının vüsət alması, ictimai-siyasi, mənəvi, iqtisadi böhranın gündən-günə dərinləşməsi faktı qeyd olunur, dövlət idarəçiliyində və iqtisadi sistemdə, hüquqi dövlət quruculuğunda real addımların atılmadığı, hakimiyyətin fərsiz kadr siyasətinin cəmiyyətin durumunu daha da çətinləşdirdiyi və s. bildirilirdi. Müraciətdə Azərbaycanı üzləşdiyi ağır vəziyyətdən yalnız müdrik siyasətçi və dövlət xadimi kimi Heydər Əliyevin xilas edə biləcəyi vurğulanır, onun rəhbərliyi ilə Azərbaycan xalqını öz ətrafında səfərbər edərək, ölkəni ağır durumdan çıxarmağa qadir olan yeni bir güclü siyasi təşkilatın yaranmasına ehtiyac olduğu qeyd edilirdi.

Heydər Əliyev 1992-ci il oktyabrın 24-də ziyalıların müraciətinə cavab verdi. Cavab məktubunda "Azərbaycanın dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsini, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunu, ölkə vətəndaşlarının dövlətçilik ətrafında birləşdirilməsini, bütün imkanları səfərbər edərək hərtərəfli, genişplanlı iş aparılmasını mövcud dövrün ən mühüm vəzifələri kimi qiymətləndirən Heydər Əliyev bu istiqamətdə respublikanın ictimai-siyasi, sosial-iqtisadi və milli-mənəvi potensialından maksimum istifadə etməklə qarşıda dayanan əsas problemləri həll etməyin mümkün yolları haqqında öz fikirlərini söylədi. O, qarşıda duran taleyüklü milli vəzifələrin həyata keçirilməsində yaxından iştirak etmək məqsədilə müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya, siyasi plüralizm

şəraitində yeni bir partiyanın yaradılmasının obyektiv zərurətdən doğduğunu vurğulayaraq, bu istiqamətdəki fəaliyyətlərinə görə ölkə ziyalılarına öz təşəkkürünü bildirdi. Müraciətdə Heydər Əliyev qeyd etmişdir ki, belə bir partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində fəal iştirak etməyə hazırdır.

Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyası təsis edildi və Heydər Əliyev onun sədri seçildi. Həmin gün YAP-ın qəbul etdiyi bəyanatda partiyanın başlıca proqram məqsədinin dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin olunması, demokratik hüquqi dövlətin yaradılması, sosial istiqamətli iqtisadiyyatın bərqərar edilməsi və s. ibarət olduğu göstərilmişdir. YAP təsis olunduqdan sonra tezliklə respublikanın bütün bölgələrində partiyanın təşkilatlanması prosesi başladı. Azərbaycan xalqının Heydər Əliyevin şəxsiyyətinə, dərin və uzaqgörən siyasətinə bəslədiyi sevgi və inamının nəticəsi idi ki, partiyanın sıraları sürətlə genişləndi. Lakin YAP-a respublika vətəndaşlarının kütləvi axını AXC-Müsavat iqtidarını narahat etməyə başladı. Onlar bütün vasitələrlə partiyanın təşkilatlanması prosesinə maneçilik törədir, partiyanın yaranmasında iştirak edən insanları təqib edir və başqa təzyiqlərə əl atırdılar. Sonrakı müddətdə iqtidarın bu yanlış siyasəti son nəticədə Azərbaycanı vətəndaş müharibəsi və dövlət müstəqilliyinin itirilməsi təhlükəsi ilə üz-üzə qoydu. 1993-cü il iyunun 4-də Gəncə şəhərində hökumət qüvvələri ilə Surət Hüseynovun silahlı dəstələri arasında hərbi toqquşma baş verdi. Naxçıvan MR Ali Məclisinin və Nazirlər Kabinetinin Rəyasət Heyəti Gəncə şəhərində baş verən hadisələrlə bağlı 1993-cü il iyunun 7-də bəyanat verdi. Sənəddə Azərbaycanda faktiki olaraq vətəndaş müharibəsinin başlandığı bildirildi və bu, Azərbaycanın ağır və tarixən məsuliyyətli bir dövründə baş verən dəhşətli hadisə kimi qiymətləndirildi.

Respublikadakı ictimai-siyasi vəziyyətə nəzarəti tamamilə itirdiyini görən və hadisələrin sonrakı gedişindən ciddi təşviş keçirən AXC-Müsavat hakimiyyəti çıxış yolunu Heydər Əliyevi Bakıya dəvət etməkdə gördü. Parlamentin 1993-cü il iyunun 15-də keçirilən iclasında Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Parlamentdəki ilk çıxışında Heydər Əliyev Ali Sovetin Sədri kimi qarşıda duran bir çox vəzifələr haqqında danışdı. Onların sırasında dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi; Ermənistan tərəfindən işğal olunmuş torpaqların azad edilməsi; ölkədə demokratik inkişaf və siyasi plüralizmə nail olunması; dövlət quruculuğu prosesində demokratik prinsiplərin və qanunçuluğun təmin edilməsi; bazar iqtisadiyyatı sisteminin formalaşdırılması və inkişafı məsələsini xüsusi qeyd etmək lazımdır. Tarixi proseslərin sonrakı gedişi göstərdi ki, Heydər Əliyev həm Ali Sovetin Sədri, həm də sonrakı illərdə Azərbaycan Respublikasının Prezidenti kimi daim xalqa arxalanaraq və zəngin dövlətçilik təcrübəsinə, uzaqgörən siyasətinə söykənərək çox qətiyyətli, müdrik və effektli idarəçilik həyata keçirdi, Azərbaycanın dövlət müstəqilliyini və milli inkişafını təmin etdi, respublikada demokratik dövlət quruculuğu, siyasi plüralizm, vətəndaş cəmiyyəti və bazar iqtisadiyyatı prinsiplərini dönməz hala gətirdi, ölkəni dinamik inkişaf yoluna çıxardı və öz adını xalqımızın dövlətçilik tarixinə müstəqil, demokratik Azərbaycan dövlətinin BANİSİ və LİDERİ kimi həkk etdi.

"**Azərbaycan**".-2013.-3 may.-N 94.-S.3.

## MÜASİR AZƏRBAYCANIN MEMARI VƏ QURUCUSU

**Aslan ASLANOV,**
AzərTAc-ın baş direktoru

**Müasir müstəqil Azərbaycan öz memarı və qurucusu - Böyük Azərbaycanlı, ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyini böyük təntənə ilə qeyd edir. Ulu öndərin Azərbaycana rəhbərlik dövrü xalqımızın tarixi yaddaşına Heydər Əliyev epoxası kimi daxil olmuşdur. Bu dövr Azərbaycanın inkişaf arxitekturasının ən şərəfli səhifələrindən biridir. Hazırda beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən daxili və xarici siyasət strategiyası, xüsusən sosial-iqtisadi inkişaf məhz ulu öndərin fəaliyyətinin bəhrələridir. Bu dövrün ən böyük uğuru odur ki, Azərbaycan son 21 ildə dövlət müstəqilliyini qoruyub saxlaya bilmiş, onu möhkəmləndirmiş və inkişaf etdirmişdir. Qısa zaman kəsiyində Azərbaycan nəinki inkişafın ən düzgün istiqamətlərini müəyyən etmiş, hətta aparıcı ölkələrin böhran yaşadığı bir dövrdə böhranı qabaqlamağın milli modelini formalaşdıra və dünyaya təqdim edə bilmişdir.**

Ümummilli lider Heydər Əliyev Azərbaycanın inkişaf modelinin uzunömürlülüyünü təmin edən üç universal irs yaratmışdır - milli ideologiya, milli dövlətçilik və milli dövlət. Bunların hər biri ayrı-ayrılıqda Heydər Əliyevin ümummilli lider statusu üçün kifayət edərdi. Ancaq Heydər Əliyev xarizmatik lider, zəngin dövlətçilik təcrübəsinə malik siyasi xadim olduğuna görə hər bir məsələyə kompleks yanaşma onun fəaliyyətinin xarakterik cəhəti idi.

Siyasi təhlilçilər yazırlar ki, Azərbaycanın davamlı inkişafını təmin edən Heydər Əliyev ideologiyası ideyanı praktik fəaliyyətə transformasiya edərək, insanların davranışını stimullaşdırmaq qüdrətinə malik olan dəyərləri özündə ehtiva edir. Məhz bunun nəticəsidir ki, cəmiyyətin hər bir üzvü bu ideologiya çərçivəsində özünün istək və arzularının ifadəsini tapır. Bu prizmadan yanaşdıqda aydın olur ki, ulu öndər Heydər Əliyev inkişaf strategiyasını üç fundamental dəyər üzərində qurmuşdur. Bunlar güclü müstəqil dövlət, şaxələndirilmiş dinamik iqtisadiyyat və azad insan amilidir. Hər üç dəyərin harmoniyası ölkənin hərtərəfli tərəqqisinə hədəflənən trenddir. Ulu öndər bu dəyərləri müəyyənləşdirərkən Azərbaycan xalqının keçdiyi tarixi yolu, milli-mənəvi amilləri, eyni zamanda perspektivdə qarşıda duran vəzifələri nəzərə almışdır.

Ümummilli lider milli ideologiyanı yaradarkən dövlətçilik prinsiplərini əsas götürdüyünü bildirərək deyirdi: "Bu milli ideologiya nədən ibarətdir? Birincisi, dövlətçilik. Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə hər bir vətəndaş vətənpərvərlik hissi ilə yaşamalıdır".

Tam qətiyyətlə demək olar ki, Heydər Əliyev bütün ömrünü vətənpərvərlik hissi ilə yaşamışdır. Müasir Azərbaycan dövlətinin siyasi, iqtisadi və sosial inkişaf parametrlərindən danışılarkən çox vaxt Heydər Əliyevin müstəqillik illərindəki titanik fəaliyyətinin nəticələri diqqətə çatdırılır. Ancaq yaxın tarixi keçmiş Azərbaycanda dövlətçilik hissinin və milli mənlik şüurunun hələ 1970-ci illərin əvvəllərindən formalaşdığını və sürətlə inkişaf etdiyini göstərir. Xalqımızın böyük oğlu Heydər Əliyevin siyasi hakimiyyətinin birinci dövründə Azərbaycan iqtisadi, ictimai-siyasi, mənəvi-mədəni həyatın bütün sahələrində böyük uğurlar qazanaraq, təkcə keçmiş SSRİ-də deyil, dünya miqyasında tanınmağa başlamışdı. Sərt imperiya qadağalarına baxmayaraq, Heydər Əliyev o dövrdə müstəsna siyasi çeviklik və uzaqgörənlik nümayiş etdirmiş, xalqımız və ölkəmiz üçün misilsiz işlər görmüş, tənəzzül girdabında boğulan Azərbaycanı ittifaqın qabaqcıl respublikaları sırasına çıxarmışdı.

Heydər Əliyevin hakimiyyətinin sovet dönəmi Azərbaycanda ictimai-siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində möhtəşəm quruculuq dövrü olmuşdur. Milli təəssübkeşlik hissi ilə zəngin olan bu quruculuq dövrünün baş memarı Heydər Əliyev idi. Sözün həqiqi mənasında, müasir müstəqil Azərbaycan dövləti məhz Heydər Əliyevin siyasi hakimiyyətinin birinci dövründə - 1969-1982-ci illərdə yaradılmış təməl üzərində qurulmuşdur. Heydər Əliyev istər Azərbaycanda, istərsə də keçmiş ittifaq dövlətində ali rəhbər vəzifələrdə çalışarkən erməni millətçilərinin torpaqlarımıza olan iddialarına sipər çəkmişdi. Onlar hər dəfə baş qaldıranda Heydər Əliyev bu fitnəkarlığa qarşı qətiyyətli, sərt və barışmaz mövqe nümayiş etdirmişdir.

Tarix təsdiq edir ki, məhz Heydər Əliyev 1987-ci ilin oktyabrında ali hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra erməni millətçiləri respublikamıza və xalqımıza qarşı təxribat planlarını həyata keçirməyə başlamışlar. Heydər Əliyevin ittifaq rəhbərliyindən uzaqlaşdırılması ermənilərin Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin ilhaqı və işğalı planının ilk mərhələsi idi. Çünki onlar Heydər Əliyev fenomeninə bələd idilər və yaxşı bilirdilər ki, onu siyasi rəhbərlikdən uzaqlaşdırmadan özlərinin məkrli niyyətlərinə nail ola bilməyəcəklər. Bundan sonra

isə Azərbaycanda yaradılmış güclü iqtisadi potensialın dağıdılmasından tutmuş, milli ləyaqət hissinin tapdalanmasına, düşmən qarşısında təslimçilik ruhunun aşılanmasına qədər hər cür çirkin üsullara rəvac verildi. Heydər Əliyevin rəhbərliyi dövründə respublikamızın sənayedə, aqrar sektorda və mədəni quruculuqda qazandığı böyük uğurlara kölgə salmaq məqsədi güdən təbliğat maşını işə salındı. Azərbaycanlıların Ermənistan ərazisi sayılan əzəli dədə-baba torpaqlarından zorla, vəhşiliklə qovulması həyata keçirildi. Azərbaycan öz tarixi ərazisi olan Dağlıq Qarabağa siyasi, iqtisadi nəzarəti itirdi. Bunun ardınca, 1990-cı ilin Qanlı Yanvar qırğını törədildi, Ermənistanın Azərbaycana açıq hərbi təcavüzü başlandı. Məhz o dövrdə səriştəsiz, milli təəssübkeşlikdən uzaq, dövlət işində naşı rəhbərlərin bir-birini əvəzləməsi, Heydər Əliyevi xalqdan və böyük siyasətdən təcrid etmək cəhdləri Azərbaycanı parçalanmaq təhlükəsi, vətəndaş müharibəsi ilə üz-üzə qoydu.

Hakimiyyət davası, cinayətkarlıq və terrorçuluq, qorxu və sabaha inamsızlıq, Qarabağın əliyalın azərbaycanlı əhalisinin silahlı Ermənistan ordusu qarşısında köməksizliyi, şəhər və kəndlərimizin yerlə-yeksan edilməsi, ordu quruculuğuna cinayətkarcasına biganə münasibət, iqtisadi təxribatlar, milli strateji sərvətlərin talan olunması, tayfabazlıq və dövlət mafiyası - o dövrdəki hakimiyyətlərin əsas cizgiləri idi. Belə bir ağır vaxtda Azərbaycan xalqı müdriklik göstərərək xilaskar oğlunu - Heydər Əliyevi siyasi rəhbərliyə dəvət etdi.

Bəs, 1969-1982-ci illərdə öz əlləri ilə qurduğu abad, firavan Azərbaycandan 1993-cü ildə Heydər Əliyevə nə miras qalmışdı? Səbatsız və təsadüfi "rəhbərlərin" xalqa zidd siyasəti nəticəsində daxili və xarici düşmən təxribatları üçün poliqona çevrilmiş, xəyanət və satqınlıqlar üzündən torpaqlarının bir hissəsi işğal olunmuş, yüz minlərlə soydaşımızın öz doğma yurdlarından didərgin düşdüyü bir ölkə. Bütün bunlarla yanaşı, hərbi-siyasi anarxiya, iqtisadi böhran, talançılıq və terror Azərbaycanın ictimai-siyasi həyatında düşkünlük və tənəzzül əhval-ruhiyyəsi yaratmışdı. İnsanlar sabaha inam hissini itirmişdilər.

Adı Azərbaycan xalqının yaddaşına dövlət qurucusu kimi əbədi həkk olunmuş ulu öndər Heydər Əliyev öz yeni tarixi missiyasına məhz belə ağır, mürəkkəb şəraitdə başlamışdı. Təsadüfi deyil ki, tale özü Azərbaycanı yenidən dirçəltmək, onun müstəqilliyini və suverenliyini qorumaq kimi çətin və şərəfli vəzifəni məhz Heydər Əliyevin qadir əllərinə tapşırdı. Yalnız 1993-cü ilin yayından, Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra illərlə davam edən siyasi hakimiyyət böhranına, anarxiya və özbaşınalığa son qoyuldu, Azərbaycanda yeni tarixi mərhələ - dövlət müstəqilliyinin möhkəmləndirilməsi və real dövlət quruculuğu dövrü başlandı.

Dövlətin müqəddəratının sual altında olduğu bir dövrdə Azərbaycan xalqının öz taleyini Heydər Əliyevə etibar etməkdə yanılmadığını ulu öndər qayıdışının elə ilk aylarından sübuta yetirdi. Ölkəni bir neçə il ərzində taqətdən salan hərc-mərcliyə qısa müddətdə son qoyuldu, sabitlik və əmin-amanlıq təmin edildi, siyasi və iqtisadi böhran dayandırıldı, erməni təcavüzünün Azərbaycanın içərilərinə irəliləməsinin qarşısı alındı. Ən başlıcası isə insanlarda ölkənin gələcəyinə inam yarandı. Bu inamın fəlsəfəsini o dövrdə meydana gəlmiş "Xalq-Heydər, Heydər-Xalq" deyimi çox aydın şəkildə təcəssüm etdirirdi. Beləliklə, 1993-cü il Azərbaycanın müasir tarixinə yeni dövrün başlanğıcı kimi daxil oldu. Qüdrətli dövlət xadimi Heydər Əliyev çox böyük müdrikliklə ölkənin inkişaf vektorunu müəyyənləşdirdi, strateji hədəfləri dəqiqləşdirilmiş mükəmməl xarici siyasət konsepsiyası işləyib hazırladı.

Ölkəmizin xarici tərəfdaşları açıq etiraf edirlər ki, Heydər Əliyev dövlətin xarici siyasət konsepsiyasını - Azərbaycanın Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən körpü rolunu möhkəmləndirən, modernləşmənin əsasını qoyan konsepsiyanı son dərəcə tarazlaşdırılmış şəkildə quraraq, onu beynəlxalq inkişafın qlobal meyilləri ilə əlaqələndirmişdir. Müstəqil Azərbaycanda modernləşmə prosesi 1994-cü ildə aparıcı beynəlxalq neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanmasından başlanmışdır. Bu müqavilə milli iqtisadiyyatın inkişafına güclü təkan vermiş, onu keyfiyyətcə yeni çalarlarla zənginləşdirmişdir. Qısa müddətdə 22 beynəlxalq neft sazişinin imzalanmasına nail olan Heydər Əliyev dünyanın maliyyə elitasını bu layihələrin təkcə Azərbaycan və region üçün deyil, bütün Avropa üçün real və zəruri olmasına inandıra bilmişdi.

Heydər Əliyev cəbhədə atəşkəsə nail olmaqla, ölkədə möhkəm siyasi sabitlik təmin etməklə müstəqil Azərbaycan dövlətinin böhrandan çıxması və gələcək inkişafı üçün zəmin yaratdı. Bunun ardınca 1995-ci ilin noyabrında ümumxalq səsverməsi ilə qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkənin modernləşdirilməsinin, yeni iqtisadi sistemə keçidin hüquqi bazasını yaratdı və həmin vaxtdan respublikanın iqtisadi həyatının yeni mərhələsi başlandı.

Heydər Əliyev bazar iqtisadiyyatına keçidi təmin edəcək islahatların dərinləşdirilməsində özəlləşdirməyə həlledici yer verirdi. İlkin olaraq kiçik özəlləşdirmə adlanan proses - xidmət sahələrinin, ticarətin, tikinti və nəqliyyatda bir sıra sahələrin özəlləşdirilməsi bazar münasibətlərinə yumşaq keçidi təmin etdi. Bu sahədəki təcrübə orta və iri müəssisələrin özəlləşdirilməsi prosesini uğurla davam etdirməyə imkan verdi.

Lakin ölkə əhalisinin 40 faizdən çoxunun yaşadığı kənd yerlərini bazar münasibətlərinə cəlb etmədən yeni iqtisadiyyatın yaradılması təmin oluna bilməzdi. Bu isə, ilk növbədə, torpağın şəxsi mülkiyyətə verilməsi, kolxoz və sovxozların əmlakının özəlləşdirilməsi - yəni, aqrar islahatın aparılması nəticəsində mümkün idi.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə respublikamızda çox cəsarətli, keçmiş SSRİ məkanında bənzəri olmayan torpaq islahatının həyata keçirilməsi, əslində, Azərbaycan kəndində bütün təsərrüfat ukladını, kəndin həyat tərzini kökündən dəyişdi.

Heydər Əliyevin iqtisadi strategiyasında ölkəyə xarici sərmayələrin cəlb edilməsi xüsusi yer tuturdu. İlk vaxtlar əsasən Azərbaycanın yeni neft strategiyasının reallaşdırılması ilə bağlı qoyulan xarici sərmayələr getdikcə iqtisadiyyatın digər sahələrinə, infrastruktur layihələrinə də sirayət edirdi. Ölkədə əlverişli sərmayə mühitinin yaradılması, o cümlədən xarici sərmayələrin qorunması üçün dövlət tərəfindən bütün zəruri tədbirlər görülür, müvafiq qanunvericilik bazası yaradılırdı. 1995-2003-cü illərdə ölkə iqtisadiyyatına qoyulmuş 16 milyard dollardan artıq sərmayənin 12,3 milyard dolları və ya 77 faizi xarici sərmayənin payına düşürdü. Təkcə 2000-2003-cü illərdə Azərbaycan iqtisadiyyatına 7,5 milyard dollardan çox xarici sərmayə qoyulmuşdu ki, bu da adambaşına götürdükdə bütün MDB məkanında ən yüksək göstərici idi.

Mülkiyyət, maliyyə-bank, valyuta, vergi, məhkəmə-hüquq sahələrində qəbul olunmuş qanunlar iqtisadi münasibətlərin və mexanizmlərin əhəmiyyətli dərəcədə liberallaşmasına, təsərrüfat həyatının dövlət tərəfindən tənzimlənməsinin azalmasına gətirib çıxardı. Heydər Əliyevin yeni iqtisadi strategiyasının reallaşdırılması sahəsindəki uğurları Azərbaycanın intensiv inkişafına yol açdı. Ölkəmiz iri transmilli layihələrin həyata keçirilməsi üçün mühüm geoiqtisadi və geosiyasi məkana çevrilməyə başladı.

Ümummilli lider müasir dövlət yaratmaqla bərabər, onun gələcək illərə hesablanmış inkişaf strategiyasını da müəyyən etmiş, öz zəmanəsini qabaqlayaraq, Azərbaycanın qarşısında duran strateji vəzifələri dəqiq göstərmişdi. O, Azərbaycanı mühüm strateji meydan və dünya dövlətləri birliyinin layiqli iqtisadi tərəfdaşı kimi görürdü.

Heydər Əliyev Azərbaycan dövlətinin təməl prinsiplərində qanunçuluğun bərqərar olmasına xüsusi əhəmiyyət verirdi: dövlət varsa, qanun olmalıdır. Əgər qanun yoxdursa, dövlət də olmayacaq. Ulu öndər deyirdi ki, dövlət qanuna söykənməlidir. Dövlətin söykəndiyi qanun onun idarə edilməsinin əsas xətlərini və prinsiplərini müəyyən edir. Bu qanunlar olmasa, idarəçilik olmayacaq, idarəçiliyi olmayan dövlətin gələcəyi isə təhlükə qarşısında qalar.

Müdrik dövlət xadiminin müəyyən etdiyi təməl prinsiplərindən biri də varislikdir. Varislik dövlətin idarəçiliyində, siyasətdə, iqtisadiyyatda və ideologiyada prinsipial olaraq əldə edilənlərin gələcək nəsillərə ötürülməsidir. Varislik mexaniki deyil, yaradıcı şəkildə, təkamül yolu ilə baş verir. Yaradıcı varislik nəticəsidir ki, Azərbaycan ümummilli liderin müəyyən etdiyi təməl üzərində keçmişə söykənərək, gələcəyə doğru inkişaf etməkdədir. Bəzən varislik deyəndə kimlərsə hakimiyyət varisliyini önə çəkmək istəyir. Ancaq bu, hakimiyyət varisliyi, fərdi şəkildə varislik deyildir. Bu, hakimiyyətin ideoloji, siyasi, iqtisadi baxımdan gələcək nəsillərə ötürülməsidir.

Azərbaycan dövlətinin çox vacib təməl prinsiplərindən biri də vətəndaş həmrəyliyidir. Məhz Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycanda vətəndaş sülhünə nail olunmuşdur. Onun ölkədə vətəndaş qarşıdurmasını aradan qaldırmaq istiqamətində gördüyü tədbirlər, dövlət çevrilişi cəhdlərinin qarşısını alması, silahlı yolla hakimiyyətə gəlmək ənənəsinə birdəfəlik son qoyması əmin-amanlığa yol açmışdır. Vətəndaş həmrəyliyi ölkəmiz üçün daimi prinsipdir. Çünki bu, bizim hamımızı birləşdirən amillərdən biridir.

Heydər Əliyevin müəyyən etdiyi digər bir prinsip isə sosial ədalətdir. Digər sahələrdə olduğu kimi, sosial ədalət prinsipinin təmin olunmasının yolu da islahatlardan keçir. Davamlı islahatlar, sürətli inkişaf yolu, cəmiyyətdə insanların rifah halının yaxşılaşdırılması fonunda sosial ədalətin təmin olunması indi siyasi və iqtisadi vasitələrlə uğurla gerçəkləşir.

Ümummilli lider həmişə vurğulayırdı ki, milli ideologiyamız tarixi keçmişimizə, adət-ənənələrimizə, xalqımızın mentalitetinə söykənməlidir. Bu, həqiqətən də belədir. Azərbaycan xalqı məhz bu prinsiplərə söykənərək gələcəyə doğru inamla addımlayır, dövlətimiz inkişaf edir.

Yeni cəmiyyət quruculuğuna transformasiya prosesində ölkənin dəyərlər sisteminin arxitekturasında da dəyişikliklər baş verirdi. Bu amil humanitariyanın yeni platformasını formalaşdırmaq zərurətini yaradırdı. Bu mənada xalqımızın qədim dəyərlərinin, ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin, tarixinin özümüzə qaytarılması sahəsindəki xidmətlər də məhz Heydər Əliyevə məxsusdur. Xilaskar liderin hakimiyyətə qayıdışı respublikamızda elmin və mədəniyyətin, ictimai və dövlət həyatının ən müxtəlif sahələrinin tərəqqisi ilə əlamətdar olmuşdur. Onun qayğı və diqqəti sayəsində yüzlərlə görkəmli elm və mədəniyyət xadimi, yaradıcı ziyalıların nümayəndələri istedad və qabiliyyətlərini inkişaf etdirmək və təkmilləşdirmək, öz potensiallarını maksimum reallaşdırmaq imkanı əldə etmişdir. Heydər Əliyev elmi xalqın mənəvi həyatının ən mühüm elementi hesab edirdi. O bilirdi ki, vaxtında tətbiq edilmiş elmi-texniki nailiyyətlər və kəşflər dövlətə çox böyük fayda gətirir, iqtisadi və sosial həyat sahələrinin inkişafı üçün güclü stimula çevrilir. Buna görə o, qabaqcıl

texnologiyaların tətbiqinə, elmin və istehsalın modernləşdirilməsinə, onların arasında əlaqələrin möhkəmləndirilməsinə həmişə tükənməz qayğı göstərirdi.

Ümummilli lider yüksək ixtisaslı kadr hazırlığına çox böyük əhəmiyyət verirdi. Hələ sovet dövründə yüzlərlə istedadlı gənc o vaxtkı SSRİ-nin ən qabaqcıl tədris müəssisələrinə təhsil almağa və təcrübə keçməyə göndərilirdi ki, respublikaya qayıdandan sonra əldə etdikləri bilikləri Vətənimizin naminə tətbiq etsinlər. O istəyirdi ki, Azərbaycan elmi müasir ideyaların, səmərəli axtarışların, elmi tədqiqatların güclü generatoruna çevrilsin.

İnformasiya blokadasının yarılmasında, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında da ulu öndərin xidmətləri danılmazdır. O, hər dəfə xarici ölkələrə səfərə gedəndə Dağlıq Qarabağın tarixən Azərbaycan torpağı olmasını sübut edən müxtəlif xəritələri də özü ilə aparır, bu və ya digər ölkənin hər bir dövlət xadimi ilə söhbətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl səbəblərini və nəticələrini açıqlayır, jurnalistlər üçün bir növ ustad dərsləri keçir, hadisələri necə işıqlandırmağı, yazılarda hansı məqamlara xüsusi diqqət yetirməyi izah edirdi.

Heydər Əliyev dövlətin daha bir təməl prinsipini - azərbaycançılıq ideologiyasını yaratmışdır. Məhz bu ideologiya sayəsində biz milli ideya, milli mənlik şüuru, millətin mədəniyyəti və digər mühüm anlayışları yeni tərzdə dərk etməyə başladıq. Xalqımızın vahid qüvvə kimi birləşməsində ulu öndərin xidmətləri ölçüyəgəlməzdir. Azərbaycan xalqına qarşı soyqırımlar, onun deportasiyalara məruz qalması haqqında həqiqətləri ilk dəfə yüksək tribunalardan dünya ictimaiyyətinə çatdıran məhz Heydər Əliyev olmuşdur. Ümummilli liderin əzmkarlığı sayəsində Azərbaycan haqqında tarixi həqiqətlərin bərpa edilməsi üçün çox böyük elmi tədqiqat işləri aparılmışdır və bunun nəticələri göz qabağındadır.

Tam əminliklə demək olar ki, XX əsrin ikinci yarısında və XXI əsrin əvvəlində Azərbaycanın əldə etdiyi bütün uğurlar Heydər Əliyevin adı ilə qırılmaz surətdə bağlıdır. Bu həqiqəti çıxışlarının birində çox dəqiq ifadə edən Prezident İlham Əliyev demişdir: "XXI əsrdə Azərbaycanın milli dövlətçiliyi elə bir insanın həyat fəaliyyətinin bəhrəsidir ki, onun amalları azərbaycançılıq ideyasının zəfər çaldığı, fərdin hüquq və azadlıqlarının təmin edildiyi, iqtisadiyyatın ardıcıl surətdə yüksəldiyi və ictimai inkişafa nail olunduğu məkan qurulmasına yönəlmişdir".

Heydər Əliyev zamanın və taleyin mütləq mənada ehtiyac duyduğu, tarixin yeni mərhələsində, yeni sosial-siyasi və iqtisadi şəraitdə özünün çox böyük fitri lider potensialını reallaşdıra bilmiş bir şəxsiyyət idi. Bu, ötən əsrdə ondan başqa heç kəsə nəsib olmamışdır.

Artıq Azərbaycan milli inkişaf strategiyasında keçid mərhələsini uğurla adlayaraq, yüksəlişin keyfiyyətcə növbəti fazasına qədəm qoymuşdur. Bu mərhələdəki məqsədlərə nail olmağın yolu isə XXI əsrdə ölkəmizin siyasi, iqtisadi və sosiomədəni həyatını modernləşdirməkdən keçir. Son illərdə daxili və xarici siyasətdə qazanılmış çox böyük uğurlar indi inkişafın Azərbaycan modeli haqqında danışmağa əsas verir. Ölkənin mövcud reallıqları və perspektivləri sübut edir ki, modernləşmənin Azərbaycanın timsalında çox böyük inkişaf ehtiyatları vardır və onların hərəkətə gətirilməsi ölkənin sürətli tərəqqisinə birbaşa təsir göstərir. Ötən illərdə Azərbaycan iqtisadiyyatının, büdcə gəlirlərinin intensiv surətdə artması düşünülmüş şəkildə, konkret proqramlar əsasında həyata keçirilən iqtisadi və infrastruktur layihələri nəticəsində yaranmış yeni iqtisadi münasibətlərin səmərəli fəaliyyətinin inkaredilməz reallığıdır.

İnkişafın Azərbaycan modelindən bəhs edərkən regionların sosial-iqtisadi inkişafı sahəsində görülmüş nəhəng işləri xüsusi vurğulamaq lazımdır. Bu sahədə həyata keçirilən dövlət proqramları inkişaf səviyyəsi baxımından təkcə paytaxtla bölgələr arasında deyil, həm də ayrı-ayrı bölgələr arasında fərqləri tədricən aradan qaldırmış, yüz minlərlə yeni iş yeri açılmışdır. Qeyri-neft sektorunun sürətli inkişafına güclü təkan verən bu tədbirlər Azərbaycan iqtisadiyyatının neft amilindən asılılığının azaldılması, ölkənin tarazlı şəkildə müasirləşdirilməsi baxımından da çox böyük əhəmiyyət kəsb edir. 2004-cü ildən bəri ölkədə 1 milyondan çox yeni iş yeri açılmışdır ki, bunun da əksəriyyəti bölgələrin payına düşür. İqtisadiyyatda özəl bölmənin payı 80 faizi keçmişdir.

Prezident İlham Əliyev Azərbaycanın müasirləşdirilməsinin başlıca məqsəd olduğunu dəfələrlə qeyd edərək demişdir ki, biz ölkəmizi hər cəhətdən müasirləşdirməliyik. Azərbaycan sözün əsl mənasında inkişaf etmiş ölkəyə çevrilməlidir, bu, bizim məqsədimizdir. Dünyada inkişaf etmiş ölkələrin sayı çox deyil və Azərbaycanın bütün meyarlar üzrə bu sıraya daxil olmağa imkanları vardır.

Qlobal transformasiyaların baş verdiyi müasir dövrdə Azərbaycanın daxili və xarici siyasətinin gündəliyində əsasını ulu öndər Heydər Əliyevin qoyduğu və hazırda Prezident İlham Əliyev tərəfindən həyata keçirilən xətt - modernləşdirilmiş iqtisadiyyatı, vətəndaş cəmiyyəti və liberal ənənələri olan suveren dövlət qurmaq xətti dayanır. Bu isə postindustrial cəmiyyətə, informasiya cəmiyyətinə aparan yoldur. Azərbaycanın bu yolda əldə etdiyi uğurların sırasına daha bir möhtəşəm nailiyyət də əlavə olunmuşdur. Bu il fevralın 9-da Azərbaycanın ilk

telekommunikasiya peyki orbitə çıxarılmışdır. Bu tarixi hadisə ölkəmizdə iqtisadiyyatın daha bir trendinin - kosmik sənayenin yaranmasının təsdiqidir.

Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Onun müəyyənləşdirdiyi müstəqil dövlətçilik siyasəti xalqımızın gələcəyinə yönəlmişdir və Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə xidmət edir. Bu siyasi xətt qloballaşan dünyanın yeni nizamına uyğun olaraq, bəzi məqamlarda isə ona təsir göstərərək təkamül yolu ilə inkişaf edir. Məhz buna görədir ki, Azərbaycan dünya siyasətində öz sözünü deməklə yanaşı, digər dövlətlərin də problemlərini həll etməyə qadir olan dövlətə çevrilir. Bunun üçün sarsılmaz zəmin - dahi Heydər Əliyevin müəyyənləşdirdiyi praqmatik xarici və daxili siyasəti olan hüquqi, demokratik, müstəqil Azərbaycan dövləti və bu ideyaların daşıyıcısı Azərbaycan xalqı və onu yeni zəfərlərə aparan müdrik Prezidenti İlham Əliyev vardır.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan son 10 ildə milli yüksəlişin şərəfli mərhələsini yaşayır. Xalqımız Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olmasına tam əmindir və inanır ki, İlham Əliyev ölkəmizi Heydər Əliyev yolu ilə daha işıqlı gələcəyə aparır.

“**Azərbaycan**”.-2013.-8 may.-N 98.-S.11.

# HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT KURSU YENİ MƏRHƏLƏDƏ DİNAMİK ŞƏKİLDƏ İNKİŞAF ETDİRİLİR

**Elçin ƏHMƏDOV,**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının dosenti,
siyasi elmlər üzrə fəlsəfə doktoru

**1993-cü ilin ikinci yarısında ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Bu dövrdən başlayaraq həyata keçirilən xarici siyasətimiz məhz ümumilli liderin adı və onun fəaliyyəti ilə bağlıdır. Özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq dövlətimizin yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirən Heydər Əliyevin bu yeniləşmiş xarici siyasət xəttində, ilk növbədə, bir sıra ən mühüm və təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdu.**

Həmin vəzifələrdən biri və ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq respublikamızın ətrafındakı informasiya blokadasını yarmaqdan ibarət idi. Ona görə də yeni xarici siyasət xətti üçün hər şeydən əvvəl müharibəni dayandırmaq və dinc şərait təmin edilməli idi. Bu məqsədlə 1994-cü ilin mayından Ermənistanla atəşkəsə nail olunması, qanunsuz hərbi birləşmələrin buraxılması və ölkə daxilində sabitlik yaratmaq yolunda atılan addımlar sayəsində yeni xarici siyasət xəttinin ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli dinc şərait yarandı.

Müstəqillik əldə etdikdən sonra demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikasının üzləşdiyi sosial, iqtisadi və siyasi problemlərin müvəffəqiyyətlə həll olunması ölkəmizin beynəlxalq aləmdəki mövqeyi və ayrı-ayrı ölkələrlə milli dövlət maraqlarına cavab verən qarşılıqlı əlaqələri, eləcə də dünya birliyinə inteqrasiya prosesinin intensivliyi ilə sıx bağlı idi. Bu mənada Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərin tənzimlənməsi və inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edirdi.

Məhz buna görə də dünya birliyinə bərabərhüquqlu üzv kimi daxil olmağa çalışan və müstəqilliyinin ilk addımlarını atan, eləcə də Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycan Respublikasının xarici siyasətində dünya birliyinə inteqrasiya, ikitərəfli və çoxtərəfli münasibətlər, o cümlədən beynəlxalq təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi ümummilli lider Heydər Əliyevin fəaliyyətinin başlıca istiqamətlərindən birini təşkil etmişdir.

Ümummilli lider çox bacarıqlı, son dərəcə təcrübəli dövlət başçısı və yetkin siyasi xadim kimi bu çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə və böyük ustalıqla gəlmək bacarığı nümayiş etdirdi. Ölkəmizin sistemli şəkildə dünya birliyinə inteqrasiya olunmasında ikitərəfli və çoxtərəfli siyasi münasibətlərin genişlənməsi istiqamətində atılan addımlar mühüm əhəmiyyət kəsb edir.

Bu baxımdan Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verdi. "Əsrin müqaviləsi" və sonrakı illərdə imzalanmış çoxsaylı neft müqavilələrin Azərbaycanın dünya birliyinə inteqrasiyasını sürətləndirdi.

Ümummilli lider Heydər Əliyevin xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə çox böyük diqqət yetirilmişdir. Azərbaycan beynəlxalq təşkilatlara üzv olmaqla yanaşı, onların işlərində müntəzəm, eləcə də fəal surətdə iştirak etmək və səmərəli əməkdaşlıq ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb edir.

Bu baxımdan 1994-cü il mayın 4-də Prezident Heydər Əliyev tərəfindən "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədinin imzalaması Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi istiqamətində atılan mühüm addımlardan biri oldu. Bu proqramın Azərbaycan üçün əhəmiyyəti ondan ibarətdir ki, ölkəmiz NATO-ya daxil olan Avropa ölkələri və ABŞ-la dünya təhlükəsizlik sisteminin, eləcə də beynəlxalq münasibətlərin sivil qaydaları çərçivəsində hər cür əməkdaşlıq etmək imkanı qazandı. Bu da öz növbəsində NATO-nun hərbi strukturları ilə Azərbaycan ordusunun sülh naminə əməkdaşlıq etmək, birgə təlim və

manevrlər keçirmək, onların ordu quruculuğu təcrübəsindən bəhrələnmək, kadr hazırlığı və s. sahədə birgə hərəkət etmək imkanı verməklə yanaşı, ölkəmizin bu proqramda iştirakı qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi üçün də əlverişli şərait yaratmışdır.

Bu gün NATO ilə əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsi, Azərbaycanın dünya birliyinə inteqrasiya olunması, öz maraqlarını bilavasitə təmsil etməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyindən bu sahədə fəaliyyət müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.

1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqı və Azərbaycan Respublikası arasında ticarət, sərmayə, iqtisadiyyat, qanunvericilik, mədəniyyət, immiqrasiya və qeyri-qanuni ticarətin qarşısının alınması sahəsində əməkdaşlığı nəzərdə tutan “Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi”(TƏS) imzalanmışdır. Bu müqavilənin imzalanması Azərbaycanın xarici siyasətinin ən uğurlu səhifələrindən biri kimi qiymətləndirilir. Dövlətimiz və xalqımız üçün mühüm tarixi əhəmiyyət kəsb edən bu müqavilə Azərbaycanın Avropa strukturları və institutları ilə əlaqələrinin genişlənməsi, xüsusilə inteqrasiya istiqamətində hüququ baza rolunu oynayır. Müqaviləni imzalamış dövlətlər tərəfindən ratifikasiya edildikdən sonra 1999-cu il iyunun 22-dən qüvvəyə minən və ümummilli lider Heydər Əliyevin imza atdığı bu saziş tərəflər arasında yüksək səviyyəli əməkdaşlığın təşəkkül tapmasını təsdiqləyir.

Azərbaycanın Avropa institutlarına inteqrasiyası istiqamətində Avropa Şurasının bərabərhüquqlu üzvü olması - respublikamızın mühüm problemlərinin dünya ictimaiyyətinin diqqətinə obyektiv çatdırılması üçün yeni və çox mötəbər tribuna vermiş oldu. Belə ki, Avropa Şurası Nazirlər Komitəsinin 2001-ci il yanvarın 17-də nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edildi. Bu qərar ümummilli liderin uzaqgörən, daxili və xarici siyasətinin və bu istiqamətdə görülmüş məqsədyönlü fəaliyyətinin nəticəsi idi.

Az sonra, yanvarın 25-də Azərbaycan Prezidenti Heydər Əliyevin iştirakı ilə Strasburqda ölkəmizin bu təşkilata üzv qəbul edilməsi münasibətilə rəsmi mərasim keçirilmiş və dövlətimizin üçrəngli bayrağı ucaldılmışdır. Bu hadisəni ümummilli lider Heydər Əliyev yüksək qiymətləndirərək demişdi: “Azərbaycanın Avropa Şurasına qəbul edilməsi nəinki müstəqil, suveren, demokratik, dünyəvi dövlət kimi tanımasıdır, həm də Avropa ailəsinin bərabərhüquqlu üzvü kimi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır”.

Ümummilli lider Heydər Əliyev Avropa Şurasının tribunasından Azərbaycanın mənafeyinə uyğun şəkildə istifadə edilməsi üçün uğurlu bir addım atdı. Belə ki, Avropa Şurası Parlament Assambleyasındakı Azərbaycan nümayəndə heyətinə millət vəkili İlham Əliyevin rəhbərlik etməsi və daha sonra cənab İlham Əliyevin AŞPA-dakı fəaliyyəti ümummilli liderimiz Heydər Əliyevin qarşıya qoyduğu bütün vəzifələri reallaşdırdı.

Məhz cənab İlham Əliyevin prinsipial və ardıcıl fəaliyyəti nəticəsində AŞPA-nın 2002-ci ilin sentyabrında keçirilən payız sessiyasında ilk dəfə olaraq bu beynəlxalq qurumun sənədlərində Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağın işğalı faktı rəsmi şəkildə öz əksini tapdı. Bu hadisə Azərbaycan nümayəndə heyətinin, xüsusilə, nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyevin qətiyyətli mövqeyinin nəticəsi idi. Bütün bunların məntiqi davamı kimi, 2003-cü il yanvarın 27-də siyasi qabiliyyəti, diplomatik məharəti və prinsipiallığı ilə xüsusi seçilən Azərbaycan nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyevin AŞ PA-nın vitse-prezidenti və qurumun Büro üzvü seçilməsi ilə müstəqil Azərbaycan tarixinə yeni səhifə yazılmış oldu.

Azərbaycanın ən ağrılı problemi olan Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ümummilli lider Heydər Əliyevin xarici siyasət fəaliyyətində başlıca yer tutmuşdur. Bu məqsədlə 1993-cü ilin ikinci yarısından başlayaraq Prezident Heydər Əliyev respublikamızın təhlükəsizlik problemlərini, xüsusilə, Ermənistanın ölkəmizə qarşı əsassız ərazi iddiaları və hərbi təcavüzü məsələlərini beynəlxalq aləmə çıxararaq, regionda sülhün bərqərar olması üçün beynəlxalq təşkilatların təsirini artırmağa çalışmışdır.

Bu məqsədlə ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də çoxtərəfli görüşlərində ATƏT-in Zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, eyni zamanda Ermənistan prezidenti ilə danışıqlarda göstərdiyi səylər Azərbaycan Prezidenti Heydər Əliyevin apardığı məqsədyönlü siyasətin mühüm tərkib hissəsini təşkil etmişdir. Belə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə nizama salınması istiqamətində məhz Prezident Heydər Əliyevin qətiyyətli və gərgin fəaliyyəti nəticəsində 1994-cü il mayın 12-də atəşkəs haqqında razılıq əldə edildi və bundan sonra ATƏT-in Minsk qrupu çərçivəsində müntəzəm olaraq danışıqlar aparılmağa başlandı.

Ümumiyyətlə, Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə nizama salınması ümummilli liderimiz Heydər Əliyevin xarici siyasət fəaliyyətində mühüm yer tutmuşdur. Yalnız onu qeyd etmək kifayətdir ki, 1993-2003-cü illər ərzində Azərbaycanın dövlət başçısı Heydər Əliyev Ermənistan Prezidenti ilə 23, ATƏT-in rəhbərliyi və Minsk qrupunun nümayəndələri ilə 150-yə qədər görüş keçirmişdir. Azərbaycan Prezidenti bu dövrdə 80-dək ölkənin dövlət başçıları ilə keçirdiyi 500-dən çox görüşdə, eləcə də nüfuzlu beynəlxalq təşkilatların ən yüksək səviyyəli nümayəndələri ilə, ATƏT- in, NATO-nun , Avropa

Şurasının, İslam Əməkdaşlıq Təşkilatının, MDB-nin, GUAM-ın, İqtisadi Əməkdaşlıq Təşkilatının, Türkdilli ölkələrin dövlət başçılarının Zirvə görüşlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunmuşdur.

Əsası ümummilli lider tərəfindən qoyulmuş və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən xarici siyasət strategiyası dövlətlərarası regional və beynəlxalq əlaqələrə daha yaxından qatılaraq, Şərq və Qərb dəyərlərinin sintezindən yaranmış cəhətləri özündə əxz edərək, dünya birliyinə sıx inteqrasiya olunmaq xəttini seçmişdir. Hazırda regionda və dünyada baş verən əsas iqtisadi siyasi və mədəni proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur.

Azərbaycan artıq Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Hazırda bu istiqamətdə əsas diqqət Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpa edilməsi, regionda sabitliyin və təhlükəsizliyin gücləndirilməsi, Xəzər dənizi hövzəsinin demilitarizasiyası, Avroatlantik strukturlara inteqrasiya və s. məsələlərə yönəldilmişdir. Hazırda mühüm geosiyasi məkan kimi Azərbaycan regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Artıq ölkəmiz bütün regional məsələlərdə əsas iştirakçıdır və dövlət başçısı cənab İlham Əliyevin qeyd etdiyi kimi, “Regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz” .

Müasir dövrdə ölkəmiz Avropa İttifaqı ilə münasibətlərində öz xarici prioritetlərinə uyğun olaraq daha çox ikitərəfli əlaqələrə üstünlük verir. Avropa İttifaqının regional layihələrində iştirak etməklə yanaşı, Cənubi Qafqazdakı ümumi iqtisadi tərəqqidəki payına görə lider dövlət olan Azərbaycan İttifaqın xarici əlaqələrində müəyyən mövqe tutmağa çalışır. Buna görə də Azərbaycan dövləti Avropa İttifaqı ilə ikitərəfli əlaqələrin yeni formatlarını yaratmaqla, onunla yaxınlaşmaq üçün zəruri olan bütün təsisatları inkişaf etdirərək ittifaqın ümumavropa iqtisadi, siyasi və təhlükəsizlik məkanına inteqrasiya olunmaq istəyini nümayiş etdirir.

Ölkəmiz Avropa təhlükəsizlik arxitekturasının etibarlı tərəfdaşı kimi qitənin enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayır. Azərbaycan 2004-cü ildə əsas məqsədi Cənubi Qafqaz dövlətlərinin siyasi, iqtisadi cəhətdən Avropa dəyərlərinə yaxınlaşmasını sürətləndirməkdən ibarət olan “Avropa Qonşuluq Siyasətinə” qoşulmuş, 2006-cı ildə Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumunu imzalamış, 2008-ci ildə isə ittifaqın “Şərq tərəfdaşlığı” proqramına qoşulmaqla bu siyasi, iqtisadi əməkdaşlıq daha da genişlənmiş və keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Azərbaycanın neft sektorunun inkişafı artıq ölkəmizin iqtisadi yüksəlişinə töhfə vermiş, regional və qlobal əməkdaşlıq üçün əlavə imkanlar yaratmışdır. Bakı-Supsa, Bakı-Tibilisi-Ceyhan neft kəmərləri və Cənubi Qafqaz qaz kəməri kimi regional infrastruktur regionun əhəmiyyətini artırmış, Avropa üçün yeni və həyati əhəmiyyətli enerji mənbələrinin əsasını qoymuşdur. Yalnız enerji istehsalçısı və ixracatçısı kimi Azərbaycanın regionun əsas iştirakçısı və beynəlxalq arenada əhəmiyyətli aktor olaraq imkanları getdikcə artmaqdadır. Cənubi Qafqaz regionu üzərindən beynəlxalq nəqliyyat və komunikasiya dəhlizlərinin genişləndirilməsi və Azərbaycanın tranzit imkanlarının gücləndirilməsi ölkə iqtisadiyyatının və qeyri-neft sektorunun inkişafının vacib elementidir.

Bundan əlavə, Azərbaycanın xarici siyasətində İslam ölkələrini birləşdirən və ölkəmizin də üzv olduğu İslam Konfransı Təşkilatı (hazırda İslam Əməkdaşlıq Təşkilatı adlanır - İƏT) ilə əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Ümummilli lider Heydər Əliyevin 1994-cü ilin iyul ayında Səudiyyə Ərəbistanına rəsmi səfəri çərçivəsində müqəddəs Kəbədə ümrə ziyarəti, kral Fəhd bin Əbdüləzizlə apardığı danışıqlar, İƏT Baş katibliyinin rəhbərliyi ilə keçirdiyi səmərəli görüşlər Azərbaycanın İslam aləmində olan maraq və diqqəti daha da artırdı. Nəticədə, İƏT-in beynəlxalq aləmdəki nüfuz və imkanlarından lazımi səviyyədə istifadə edə bilməsi istiqamətində Azərbaycanın mövqeyini daha da möhkəmləndirərək əməkdaşlığın gələcək inkişafına zəmin yaratdı.

Azərbaycan müasir dövrün hədə və təhdidlərinin əlaqələndirilmiş şəkildə qarşısının alınması, eləcə də aradan qaldırılması üçün beynəlxalq birliyin səylərini səfərbər etmək məqsədilə qlobal və regional təşkilatların işində fəal iştirak edir. Ölkəmiz sülhün və təhlükəsizliyin təmin olunmasında universal beynəlxalq təşkilat kimi BMT-nin mərkəzi rolunun daha da artırılması istiqamətində göstərilən səyləri dəstəkləməklə təşkilatın müxtəlif təsisatları və ixtisaslaşdırılmış qurumlarında təmsilçiliyini daha da artırmışdır. Azərbaycan Respublikası BMT mexanizmlərinin yenidən işlənməsini, xüsusilə də Təhlükəsizlik Şurasının daimi üzvlərinin veto hüququna yenidən baxılmasını təklif etmişdir.

2000-ci ilin sentyabr ayında BMT-nin Minilliyin sammitində çıxış edən ümummilli lider Heydər Əliyev dünyada sülhün və təhlükəsizliyin qorunmasında bu beynəlxalq təşkilatın mühüm rol oynadığını qeyd etmiş, regional münaqişələrin, o cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan

qaldırılmasına dair Azərbaycanın mövqeyini bir daha bildirmiş, bəşəriyyətin üzləşdiyi problemlərin həllində BMT-nin fəaliyyətini daha da gücləndirmək məqsədilə təşkilatda islahatların aparılmasının zəruriliyini vurğulamışdır.

Ölkəmizin artan bu siyasi fəallığının nəticəsi kimi, 2004-cü il oktyabrın 29-da BMT Baş Məclisinin sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı məsələ iclasın gündəliyinə salınmışdır. Daha sonra BMT Baş Məclisinin 2006-cı il sentyabrın 7-də keçirilən 60-cı sessiyasının 98-ci və 2008-ci il martın 14-də keçirilən 62-ci sessiyanın 86-cı plenar iclaslarında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamələr qəbul edilmişdir.

Bununla yanaşı, Azərbaycan 2011-ci il oktyabrın 24-də 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə BMT-yə üzv olan 193 dövlətdən 155 dövlətinin dəstəyini qazanaraq inamlı qələbə qazanmışdır. BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biri olmaqla ölkənin son illər dünya miqyasında artan siyasi nüfuzunun bariz sübutu olaraq qəbul edilməlidir. Belə ki, Azərbaycan müstəqilliyin ötən 20 ili ərzində stabil inkişaf edən, yüksək iqtisadi göstəricilərə nail olan və beynəlxalq siyasətdəki əməlləri ilə dünya ictimaiyyətinin rəğbətini qazanan dövlət olaraq bütün bu müvəffəqiyyətlərin nəticəsində beynəlxalq səviyyədə ən mötəbər qurumun üzvlüyünə seçilmişdir. Digər tərəfdən, bu hadisə son illərdə Azərbaycanın dünya siyasətindəki müxtəlif qlobal problemlərin müzakirəsinə cəlb olunması, ölkəmizin regional siyasətlə yanaşı, dünya siyasətinin də əsas aktorlarından birinə çevrilməsidir. Çünki beynəlxalq münasibətlər sisteminin böyük miqyaslı məsələlərinin müzakirəsi prosesində ölkəmizin artan fəallığı danılmaz faktdır.

Azərbaycan Prezidenti İlham Əliyev müstəqilliyimiz dövründə – 20 il ərzində belə böyük uğurun əldə edilməsini tarixi nailiyyət kimi qiymətləndirərək demişdir: "Biz 20 il ərzində müstəqil ölkə kimi özümüzü dünyada təsdiq edə bilmişik. Biz sübut edə bilmişik ki, Azərbaycan etibarlı tərəfdaşdır, Azərbaycan dost ölkədir və dostların sayının artması bizim siyasətimizin təntənəsidir. Bu səsvermə müstəqilliyimizin 20 illiyinə təsadüf edir. Bu, çox rəmzi məna daşıyan bir hadisədir. Bu, göstərir ki, 20 il ərzində Azərbaycan müstəqil dövlət, dünyada böyük şöhrətə malik olan ölkə kimi özünü göstərib. Bu qələbə Azərbaycan xalqının qələbəsidir. Bu qələbə Azərbaycan dövlətinin qələbəsidir, siyasətimizin təntənəsidir".

Ümummilli lider tərəfindən müəyyənləşdirilmiş prinsiplərə sadiq qalan dövlət başçısı İlham Əliyev ölkəmizin xarici siyasətinin prioriteti olan Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə nizama salınmasının vacibliyini bildirmiş və beynəlxalq təşkilatların bu sahədə səylərini gücləndirməsinin zəruriliyini bəyan etmişdir.

Ona görə də Azərbaycan Prezidenti İlham Əliyevin münaqişənin nizama salınması, hücum taktikasına üstünlük verməsi və bu istiqamətdə ardıcıl, qətiyyətli diplomatik addımların atılması problemin Azərbaycanın milli maraqları təmin olunmaqla aradan qaldırılması və uğurlu nəticələrin əldə edilməsi üçün möhkəm zəmin yaratmışdır. Dövlət başçısı İlham Əliyevin dəfələrlə və birmənalı olaraq "Azərbaycan torpaqları danışıqların mövzusu ola bilməz" fikrini irəli sürməsi ölkəmizin ərazi bütövlüyü təmin olunmaqla münaqişənin ədalətli şəkildə həll olunacağı ilə bağlı ümidləri daha artırmışdır. Eyni zamanda, Azərbaycan Prezidenti bəyan etmişdir ki, Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcək, dünya birliyi heç vaxt Dağlıq Qarabağın müstəqilliyini tanımayacaqdır.

Münaqişənin dinc vasitələrlə nizama salınması istiqamətində bütün beynəlxalq təşkilatların qəbul etdiyi sənədlər Azərbaycanın mövqeyinin bir daha gücləndirilməsi və məsələnin beynəlxalq hüquq prinsipləri əsasında həllinin təsdiqlənməsi deməkdir. Bu baxımdan BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə, ATƏT, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatının qərarları da əhəmiyyətlidir və ölkəmizin ədalətli mövqeyinin beynəlxalq səviyyədə müdafiəsi üçün hüquqi əsasdır. Son zamanlar isə, Avropa Parlamenti və NATO-nun Zirvə toplantılarında qəbul olunan qərarlarda birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyü dəstəklənir və işğala son qoyulması bildirilir.

Göründüyü kimi, bu gün müstəqil dövlətimiz bütün sahələr üzrə inkişafını davam etdirir, beynəlxalq aləmdə mövqelərini daha da möhkəmləndirir, xarici siyasət sahəsindəki uğurlarını intensivləşdirir. Məhz bunun nəticəsidir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində dövlət başçısı İlham Əliyevin mövqeyi dünyanın aparıcı dövlətləri və nüfuzlu beynəlxalq təşkilatlarının nümayəndələri tərəfindən yüksək qiymətləndirilir və müdafiə olunur.

Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunu novatarcasına və dinamik şəkildə davam etdirən Prezident İlham Əliyev yüksək diplomatik istedadı sayəsində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni müstəvidə daha da

inkişaf etdirmişdir. Nəticədə, Azərbaycan yalnız regional deyil, eləcə də dünya miqyaslı tədbirlərə ev sahibliyi edərək, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş xarici siyasət strategiyasının müasir dövrdə dinamik şəkildə inkişaf etdirilməsi, müstəqil dövlətimizin dünya birliyində mövqelərinin yüksələcəyinə olan ümidləri daha da artırmış və perespektivdə Azərbaycanın qüdrətli dövlətlər sırasında duracağını şərtləndirmişdir.

**“Xalq qəzeti”.-**2013.-9 may.-N 99.-S.4.

# ƏSL VƏTƏNDAŞ, BÖYÜK ŞƏXSİYYƏT VƏ QÜDRƏTLİ LİDER

**Ramil USUBOV,**
Azərbaycan Respublikasının daxili işlər naziri,
general-polkovnik

Xalqımızın taleyində misilsiz rolu olan, Azərbaycanın müstəqilliyinin və dövlətçiliyinin xilaskarı, qurucusu, ölkəmizi davamlı inkişaf yoluna çıxarmış və dünya birliyinə qovuşdurmuş əvəzsiz tarixi şəxsiyyət - ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi respublikamızda, eləcə də onun hüdudlarından çox-çox kənarlarda böyük təntənə ilə qeyd edilir. Əbədiyaşar liderimizin xatirəsi Azərbaycanın hər bölgəsində, bütün sosial təbəqələr tərəfindən böyük sevgi ilə anılır. Fədakar həyatı, çoxcəhətli və möhtəşəm fəaliyyəti ilə "Dünyanın ən böyük azərbaycanlısı" adını qazanmış ümummilli liderimizə olan vətəndaşlıq borcumuz, dövlətə müstəqillik, xalqa isə azadlıq bəxş edən rəhbərə bəslənən sonsuz ehtiram bu günlərdə səslənən hər sözdə öz əksini tapır.

## Sovet Azərbaycanında milli intibah

Bu əlamətdar yubiley Azərbaycan dövlətinə və xalqına əsl xidmətin nə demək olduğunu bir daha dərk etməyə imkan verən xüsusi əhəmiyyətli tarixi bir hadisədir. Ulu öndərin keçdiyi həyat yolunun və fəaliyyətinin indiki və gələcək nəsillərə çatdırılması bizim mənəvi borcumuz, həm də onun yaratdığı müstəqil Azərbaycanın adına olan ehtiramımızdır.

Xalqımızın ümummilli lideri Heydər Əliyev barədə danışmaq çox şərəfli və eyni zamanda çox məsuliyyətlidir. Hər ötən gün bizə onun necə uzaqgörən bir insan olduğunu, Azərbaycana qarşıdakı onilliklər boyu rifah, yüksəliş bəxş edəcək planları zərgər dəqiqliyi ilə müəyyənləşdirdiyini bir daha təsdiqləyir. Heydər Əliyev həm də regionun şəriksiz lideri idi və dünyanın ən görkəmli dövlət xadimləri sırasında öz adını əbədi həkk etdirmişdir.

Bütün dövrlərdə ən ali örnək kimi qəbul ediləcək böyük vətəndaş, qüdrətli lider yalnız dövlətin tərəqqisi, müstəqil Azərbaycanın - onun vətəndaşlarının işıqlı və xoşbəxt gələcəyi naminə yaşayırdı. Həyatını xalqına fəda edən, "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" - deyən Heydər Əliyev Azərbaycanın son onilliklər ərzində qazandığı ən mühüm nailiyyətlərin şəriksiz müəllifidir. Ölkədə kriminogen durumun nəzarət altına alınması, cinayətkarlığa qarşı effektiv mübarizənin təşkili, ümumilikdə ictimai-siyasi sabitliyin qorunması kimi önəmli məsələlərin həlli ilə bağlı Heydər Əliyevin həyata keçirdiyi müdrik siyasət, atdığı məqsədyönlü addımlar nəticə etibarilə Azərbaycan dövlətçiliyinin təşəkkülünə və güclənməsinə ciddi təkan verdi.

Gənc yaşlarından Vətəninə, xalqına xidmət etməyi öz həyatının əsas amalı seçmiş ulu öndər fövqəladə təşkilatçılıq və idarəçilik qabiliyyətinə, böyük xarizmaya, sarsılmaz milli ruha və yenilməz iradəyə malik bir şəxsiyyət idi. Yalnız dahilərə xas olan nadir keyfiyyətləri sayəsində, o, Azərbaycan Xalq Daxili İşlər Komissarlığında sıravi əməkdaşdan Dövlət Təhlükəsizlik Komitəsinin Sədri vəzifəsinədək yüksəlmiş və xüsusi xidmət orqanlarında ilk azərbaycanlı general olmuşdur.

1969-cu ilin 14 iyulunda Azərbaycana rəhbər seçilməsi Heydər Əliyevin məhz liderlik xüsusiyyətinin, dövlətçilik təcrübəsinin və təşkilatçılıq məharətinin növbəti etirafı və təsdiqi idi. Həmin dövrdə bu böyük siyasət dahisi özünü Azərbaycanın yüksəlişinə həsr edərək iqtisadiyyatın tərəqqisi, mədəniyyətin inkişafı, dövlət idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, xalqın tarixi yaddaşının yenilənməsi üçün böyük əhəmiyyətli işlər görmüşdür.

1969-1982-ci illərdə respublikamızda milli gəlirin həcmi 2,5 dəfə artmışdı. Böyük quruculuq işləri aparılır, müasir infrastuktur yaradılır, şəhərlərdə yeni mikrorayonlar, park və xiyabanlar salınır, fabrik və zavodlar tikilirdi. Mədəniyyət tariximizdə iz qoyan onlarca görkəmli bəstəkar, rəssam, şair, yazıçı, heykəltəraş və başqa sənət xadimləri yetişirdi. Heydər Əliyevin müstəqil dövlətçilik ideyalarının güclənməsi və gələcəkdə reallaşması üçün etdiyi məharətli siyasi gedişlər nəticəsində Azərbaycan dili respublika Konstitusiyasında dövlət dili kimi təsbit edildi. Onun gördüyü qətiyyətli tədbirlər və şəxsi qayğısı ilə ali hərbi məktəblərə qəbul olunan gənclərin sırasında soydaşlarımızın sayı davamlı surətdə artmağa başladı, Cəmşid Naxçıvanski adına hərbi lisey yaradıldı.

Ulu öndər respublikamızın hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının inkişafı və milliləşməsi istiqamətində də diqqətəlayiq bir fəaliyyət ortaya qoydu. Həmin illərdə Daxili İşlər Nazirliyinə dövlət qayğısı gücləndi, əməkdaşların vətənpərvərlik, milli-mənəvi dəyərlər ruhunda təlim-tərbiyəsinə, peşəkarlığının yüksəldilməsinə, xalqa, vəzifə borcuna sədaqətli kadrların irəli çəkilməsinə önəm verildi.

**Dağlıq Qarabağda xilaskarlıq missiyası**

Daha bir uzaqgörən siyasət Dağlıq Qarabağda Azərbaycanın mərkəzi hakimiyyətinin mövqelərinin möhkəmləndirilməsi oldu. Həmin dövrdə vilayətdə yaşayan bir vətəndaş kimi 60-cı illərdəki acınacaqlı vəziyyəti yaxşı xatırlayıram. Yerevandan idarə olunan məkrli qüvvələr millətlərarası münasibətləri kəskinləşdirir, bölgədə yaşayan azərbaycanlıların hüquqlarının pozulması gündən-günə daha geniş miqyas alır, onlar hətta öz doğma dillərində belə ehtiyatla danışırdılar.

Yalnız Heydər Əliyevin qətiyyətli mövqeyi və məqsədyönlü siyasəti sayəsində Dağlıq Qarabağda əl-qol açmış erməni millətçiliyinə sipər çəkildi. Moskvadakı imperiyapərəst qüvvələrin təzyiqlərinə baxmayaraq, vilayət şovinist ünsürlərdən təmizləndi. Bölgənin dövlət qurumlarında, hüquq-mühafizə və təhlükəsizlik orqanlarında azərbaycanlıların təmsil olunması xeyli artdı. Dağlıq Qarabağ tam olaraq respublikanın mərkəzi hakimiyyətinin təsir dairəsinə qaytarıldı. Görülmüş qətiyyətli tədbirlər nəticəsində erməni və Azərbaycan xalqları arasında düşmənçilik toxumu səpənlər geri çəkildilər. Bir məqamı xüsusi vurğulamaq istərdim ki, bütün bu mühüm əhəmiyyətli işlər yerli erməni əhalisinin əksəriyyəti tərəfindən də rəğbətlə qarşılanırdı.

Bir sözlə, Heydər Əliyev 70-ci illərdə artıq itirilməkdə olan Dağlıq Qarabağı Azərbaycana qaytardı və bu, orada yaşayan soydaşlarımız üçün yeni dövrün başlanğıcı oldu. Dağlıq Qarabağ azərbaycanlıları özlərini doğma yurdlarının əsl sahibləri kimi hiss etməyə başladılar. Əvvəlki dövrlərlə müqayisədə həmin illərdə vilayətdə yaşayanların demoqrafik tərkibində azərbaycanlıların artımı da müşahidə olundu. Bölgənin sosial-iqtisadi həyatında böyük uğurlar əldə edilir, mühüm infrastrukturlar istifadəyə verilirdi. 1978-ci ildə Xankəndini respublikanın paytaxtı ilə birləşdirən dəmiryol xəttinin çəkilişində Heydər Əliyevin məqsədi həm də Dağlıq Qarabağın Azərbaycanın digər regionları ilə bağlılığını daha da möhkəmləndirmək idi. Vilayətin ən ucqar kəndlərinin də yolları abadlaşdırılır, yaşayış məntəqələrinin elektrik enerjisi və qazla təminatı yaxşılaşırdı.

Ulu öndərimiz vilayətdə yaşayan azərbaycanlıların təhsil məsələlərinə də xüsusi önəm verirdi. 70-80-ci illərdə bölgədə onlarca müasir məktəb inşa edildi. 1973-cü ildə isə Xankəndidə Pedaqoji İnstitutun açılması ilə vilayətdə milli ziyalı kadrların xüsusi çəkisi əhəmiyyətli dərəcədə artdı və onun fəaliyyəti Dağlıq Qarabağda azərbaycanlı ziyalıların formalaşması prosesinə ciddi təsir göstərdi.

Heydər Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasına və təbliğinə də böyük diqqət yetirirdi. Şuşada kurort kompleksinin inkişaf etdirilməsi və azərbaycanlı əhalinin kompakt yaşadığı bu şəhərin bölgənin mədəni, siyasi mərkəzinə çevrilməsi prosesi məhz ulu öndərimizin xeyir-duası ilə həyata keçirilirdi.

Ümummilli liderimizin 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrün Dağlıq Qarabağla bağlı ən xarakterik xüsusiyyəti ondan ibarətdir ki, bu müddətdə erməni millətçiləri torpaq iddialarını heç vaxt açıq şəkildə dilə gətirməyə cəsarət etmədilər və onların iki xalq arasında münasibətləri gərginləşdirmək cəhdlərinə imkan verilmədi. Ermənistanın ölkəmizə təcavüzü, Dağlıq Qarabağda və onun ətrafında cərəyan edən neqativ hadisələr də məhz ulu öndərimizin Moskvada tutduğu yüksək dövlət vəzifələrindən uzaqlaşdırılmasından sonra baş verdi.

Bütövlükdə, Azərbaycana ilk rəhbərliyi dövründə Heydər Əliyev böyük uzaqgörənliklə bugünkü müstəqil dövlətimizin ilkin əsaslarını formalaşdırdı.

**Xaosdan Qurtuluşa**

1991-ci ildə müstəqillik qazanmış Azərbaycanı Ermənistanın işğalçılıq siyasəti, daxildəki xaos və hərc-mərclik çətin sınaqlara çəkirdi. Ölkəmiz regionlara bölünmək həddinə çatdırılmışdı. Baş verən mənfi meyillər respublikanı uçuruma aparır, onun səriştəsiz rəhbərliyinin idarəçilikdə yol verdiyi kobud səhvlər isə ölkəmizi 1993-cü ilin iyun ayında vətəndaş müharibəsi həddinə gətirib çıxarmışdı. Dövlətçiliyi məhv olmaqdan, insanları vətəndaş müharibəsi təhlükəsindən, mənəvi-psixoloji sarsıntıdan xilas etməyin yolunu xalqımız yalnız Heydər Əliyev şəxsiyyətində görür və onun ali hakimiyyətə qayıtmasını tələb edirdi. Nəticədə ümummilli xarakter almış bu təkidlərin qarşısında Azərbaycanın o zamankı rəhbərliyi Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldu.

Ulu öndər 1993-cü il iyunun 15-də Ali Sovetin Sədri seçildi və xalqımızın tarixinə Milli Qurtuluş Günü kimi yazılan həmin gündən etibarən ümummilli liderin Azərbaycana rəhbərliyinin ikinci dövrü - yeni missiya başlandı.

Heydər Əliyevin qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı və milli dövlət quruculuğu, sabitliyin təmin edilməsi prosesi geniş vüsət aldı.

Qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalət, demokratiya, hüquqi dövlət quruculuğu, dünyəvilik kimi ümummilli və ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyuldu.

Dövlətin xarici siyasəti, o cümlədən aparıcı ölkələr və beynəlxalq təşkilatlarla əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətt üzrə inkişaf etməyə başladı. Ümummilli lider hesab edirdi ki, müstəqil dövlət kimi mövcud olmaq üçün, hər şeydən öncə ölkədə sabitliyi təmin etmək xüsusilə vacibdir. İctimai-siyasi sabitlik olmayan yerdə isə nizami ordu qurmaq, demokratik islahatlar aparmaq, iqtisadi inkişafa nail olmaq mümkün deyil. Heydər Əliyev həm də Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti və arxasında duran qüvvələrin məkrli niyyətləri ilə yaxından tanış idi. Bu baxımdan ulu öndər cəbhə xəttində atəşkəsin əldə edilməsinə çalışaraq müharibənin dayandırılmasına nail oldu. Nəticədə Azərbaycanda baş alıb gedən iqtisadi tənəzzülü cilovlamaq, ordu quruculuğu ilə məşğul olmaq, islahatlar aparmaq üçün vaxt və imkan yarandı.

1995-ci ildə qəbul edilmiş və müəllifi məhz Heydər Əliyev olan ilk Konstitusiyamız - hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunu, insan hüquqlarının üstünlüyünü və hakimiyyət bölgüsünü Azərbaycanın gələcək inkişaf yolu kimi müəyyənləşdirdi. Həmin ildə Milli Məclisə keçirilən birinci seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına geniş imkanlar açdı.

Heydər Əliyev Müstəqil Dövlətlər Birliyi çərçivəsində ilk dəfə olaraq torpaq islahatı apardı, şəffaf özəlləşdirmə prosesinin banisi oldu. Ermənistanın təcavüzkar siyasətini ifşa edərək gələcək uğurlarımızın siyasi, diplomatik və informativ zəminini formalaşdırdı. Azərbaycanın haqq səsini dünyaya, beynəlxalq təşkilatlara çatdırdı.

Hər birimizə yaxşı məlumdur ki, müasir tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş əlamətdar hadisə baş verməsəydi, indi biz müstəqil, qüdrətli, yeniləşən və demokratikləşən Azərbaycan dövlətindən danışa bilməzdik.

**Daxili işlər orqanlarının böyük himayədarı**

Ulu öndərimizin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra xaosdan qurtuluşa keçidin əsası qoyuldu, ölkənin ictimai-siyasi həyatında və kriminogen durumda köklü müsbət dəyişikliklər baş verdi. İntensiv surətdə həyata keçirilən tədbirlərdən biri də hüquq mühafizə, o cümlədən daxili işlər orqanlarının sıralarının saflaşdırılması, dövlətə, xalqa sədaqətli şəxsi heyətin formalaşdırılması, peşə borcunu, qanunun aliliyini hər şeydən üstün tutan əməkdaşların xidmətə cəlb edilməsi idi.

Ulu öndər 1994-cü il aprelin 29-da nazirliyin rəhbər heyətinin iştirakı ilə keçirilən müşavirədə xidməti fəaliyyətdə yol verilmiş nöqsan və çatışmazlıqları açıq şəkildə qeyd edərək, onların tez bir zamanda aradan qaldırılması üçün dəyərli tapşırıq və tövsiyələrini verdi. Onun şəxsi nəzarəti ilə qısa müddətdə bu vəzifələr reallığa çevrildi. Ümummilli liderin 1994-cü ilin avqust ayında imzaladığı "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" fərman isə bu sahədə fəaliyyətin təşkilati-hüquqi bazasının və gələcək uğurların möhkəm təməlini qoydu. Eyni zamanda, mötəbər beynəlxalq təşkilatların, Avropa ekspertlərinin rəyləri nəzərə alınmaqla "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunlar, "Daxili işlər orqanlarında xidmət keçmə haqqında" və "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında" əsasnamələr qəbul edildi.

Məhz Heydər Əliyevin rəhbərliyi altında hüquq-mühafizə orqanları respublikada tüğyan edən mütəşəkkil cinayətkarlığa, sabitlik üçün təhlükə doğuran zərərli meyillərə qarşı uğurlu mübarizəyə, qanunsuz silahlı birləşmələrin zərərsizləşdirilməsinə başladılar. Vətəndaşlarımızın dinc, rahat yaşamaları üçün lazım olan şərait yarandı, onların dövlətə, hüquq-mühafizə orqanlarına inamı daha da artdı, ictimai-siyasi, həmçinin kriminogen durum nəzarətə götürüldü.

Sabitliyin bərqərar edilməsi isə, öz növbəsində, islahatların aparılmasına, iqtisadiyyatın bərpasına və inkişaf etdirilməsinə əlverişli zəmin yaratdı. Xarici neft şirkətlərinin Azərbaycana inamını artırdı və həmin ilin sentyabrında respublikamızda iqtisadi tərəqqiyə yol açan "Əsrin müqaviləsi" imzalandı.

Lakin həyat göstərdi ki, Heydər Əliyevin milli maraqlarımızın təmin edilməsindəki qətiyyətli mövqeyi və yorulmaz fəaliyyəti ölkənin xaricində və daxildə olan düşmənlərimizi olduqca narahat edir. Onlar necə olursa-olsun Azərbaycanı bu yoldan döndərmək üçün müxtəlif vasitələrə əl atmağa başladılar.

Niyyət bəlli idi: respublikadakı mövcud ictimai-siyasi sabitliyi pozmaq, süni qarşıdurmalar yaratmaq və son nəticədə ölkəni müstəqil inkişaf yolundan döndərmək. Ancaq ümummilli liderimiz 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında baş verən dövlət çevrilişinə cəhdlərin qarşısını öz zəkasının, müdrikliyinin gücü, onu dəstəkləyən xalqının əzmi və iradəsi ilə aldı. Müstəqilliyimiz qorunub saxlandı, silahlı yolla hakimiyyətə gəlmək cəhdlərinə birdəfəlik son qoyuldu.

Xatırlatmaq yerinə düşərdi ki, 1992-ci illə müqayisədə 2002-ci ildə ölkədə qeydə alınan cinayətlərin açılması 67 faizdən 94,8 faizə yüksəlmiş, ümumi cinayətlərin sayı 30,9 faiz, o cümlədən qəsdən adamöldürmələr 2,7 dəfə, quldurluq və soyğunçuluqlar 3,7 dəfə, oğurluqlar 5,2 dəfə, odlu silahın tətbiqi ilə törədilən cinayətlər 7,2 dəfə, nəqliyyat vasitələrinin oğurluğu 25 dəfə, habelə bağlı qalmış cinayətlər 13 dəfə azalmışdı. 10 il ərzində daxili işlər orqanları tərəfindən əllərdə qanunsuz saxlanılan 30 mindən artıq silah yığılmışdı. Hər il orta hesabla qrup halında 1000-dən artıq cinayətkar dəstə zərərsizləşdirilmişdi.

Ümummilli lider tərəfindən daxili işlər orqanlarının fəaliyyəti ilə bilavasitə bağlı olan, o cümlədən insan hüquq və azadlıqlarının həyata keçirilməsi mexanizmlərini tənzimləyən 34 qanun, 100-dən çox fərman və sərəncam imzalandı. Nazirlik sistemində islahatlar aparılaraq yeni qurumlar yaradıldı.

Hələ hadisələrin ən qaynar dövründə - 1994-cü il aprelin 29-da DİN-in rəhbər işçilərinin iştirakı ilə keçirilən müşavirədə Prezident Heydər Əliyev vurğulamışdı ki, "Daxili İşlər Nazirliyinin hər bir əməkdaşının sosial müdafiəsini təmin etməliyik. Bu əməkdaşlar ilk növbədə öz vəzifə borclarını şərəflə yerinə yetirməlidirlər, ikinci növbədə isə onların mənafeyi müdafiə olunmalıdır".

Göründüyü kimi, ölkənin müqəddəratının həll olunduğu bir vaxtda belə Heydər Əliyev daxili işlər orqanları əməkdaşlarının qayğısına qalır və onların da himayədarı olduğunu konkret qərarları ilə sübut edirdi. Onun xüsusi qayğısı sayəsində, 1993-cü illə müqayisədə 2003-cü ildə nazirliyin büdcəsi 6 dəfə artmış, bu dəyişikliyin əsas qayəsini əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, xidmət şəraitinin yaxşılaşdırılması, yeni informasiya texnologiyalarının tətbiqi və sair təşkil edirdi. Bundan başqa, Daxili İşlər Nazirliyinin 300-dən çox əməkdaşı və hərbi qulluqçusu ölkənin yüksək dövlət mükafatları ilə təltif edilmiş, o cümlədən "Milli Qəhrəman" adına, orden və medallara layiq görülmüşdü.

Bütün bunlar yalnız Heydər Əliyevin polad iradəsi, fenomenal peşəkarlığı, qətiyyəti və yüksək idarəçilik bacarığı sayəsində mümkün olmuşdur. Daxili işlər orqanlarının fəaliyyətini düzgün istiqamətə yönəldən, onu xalqa və dövlətə xidmət üçün səfərbər edən ulu öndərimiz nəticədə istəyinə çatdı: daxildən saflaşan, təmizlənən daxili işlər orqanları və Daxili Qoşunlar Prezidentin inamını doğrultdu və ölkədə həyata keçirilən uğurlu islahatların təhlükəsizliyinin təminatçılarından biri oldu.

Respublika daxili işlər orqanlarının əməyini daim yüksək qiymətləndirən ulu öndər 2002-ci ildə peşə bayramımızda şəxsən iştirak edərək bir daha xidməti fəaliyyətimizlə bağlı dəyərli fikirlər söylədi. Eyni zamanda, nöqsanlarımızı göstərib tövsiyələrini verdi, vəzifələrimizi müəyyənləşdirdi və nitqini bu sözlərlə bitirdi: "Daxili İşlər Nazirliyi, polis Azərbaycan dövlətçiliyinin keşiyində durub, bundan sonra da duracaqdır. Bir daha deyirəm, mən Azərbaycanın Prezidenti kimi, Ali Baş Komandan kimi sizə etibar edirəm, sizə inanıram, sizə arxalanıram".

**Heydər Əliyevin şərəfli irsi layiqincə davam etdirilir**

Vətəninin gələcəyini düşünən ümummilli liderin xalq qarşısında əvəzsiz xidmətlərindən biri də onun zamanını qabaqlayan parlaq siyasi zəkası və böyük uzaqgörənliyi sayəsində ölkəmizi uğurla idarə edən xarizmatik lider yetişdirməsidir. Zati-aliləri cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 10 ilə yaxın bir müddətdə ictimai-siyasi həyatın bütün sahələrində böyük uğurlar əldə olunmuş, xalqımız və dövlətimiz üçün taleyüklü sayılan mühüm layihələr reallaşmışdır. Ölkəmizin iqtisadi və hərbi potensialı, əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmişdir. Artıq neçə ildir ki, respublikamız iqtisadi inkişaf tempinə görə dünyanın lider dövlətləri sırasındadır.

Ulu öndərimiz Heydər Əliyevin xalqa son müraciətindəki müdrik mövqeyini, uzaqgörənliyini - "Mən İlham Əliyevə özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" fikrini cənab Prezident öz uğurlu fəaliyyəti ilə ötən müddətdə tam təsdiqlədi və həm ulu öndərimizin, həm də bütün xalqın ümidlərini doğrultdu. Hələ 2003-cü ilin 15-16 oktyabr hadisələrində, eləcə də 2005-ci ilin oktyabrında bəzi xəyanətkar məmurların ifşası zamanı ölkə rəhbərinin nümayiş etdirdiyi qətiyyət, prinsipiallıq, eyni zamanda, təmkin və əzmkarlıq, məsələyə yanaşmada əsl Heydər Əliyev nümunəsi idi. Cənab İlham Əliyev də ulu öndərimiz kimi sübut etdi ki, dövləti inkişaf etdirmək, onu qorumaq sarsılmaz siyasi iradə və qətiyyət tələb edir.

Böyük minnətdarlıq hissi ilə onu da qeyd edim ki, daxili işlər orqanlarına və Daxili Qoşunlara diqqət və qayğı siyasəti bu gün cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısı şəxsi heyətin fəaliyyətini yüksək qiymətləndirməklə yanaşı, bu orqanlarda çalışanların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə mühüm qərarlar qəbul etmişdir. 2004-cü ildə ölkə rəhbəri polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair Dövlət Proqramını təsdiq etmiş, vəzifə maaşlarının artırılması, zabitlərə ali xüsusi rütbələrin verilməsi, əməkdaşların dövlət mükafatları ilə təltif olunması ilə bağlı çoxsaylı fərman və sərəncam imzalamışdır. Artıq uzun illərdir ki, Azərbaycan həm də əmin-amanlığın yüksək səviyyədə qorunduğu

təhlükəsiz ölkələrdən olmaqla asayişin təmini, cinayətkarlığa qarşı mübarizədə əldə edilmiş müsbət nəticələrə görə MDB, eləcə də Şərqi Avropa məkanında öncül mövqe tutur.

Birmənalı şəkildə demək olar ki, xalqımızın demokratik, hüquqi dövlətdə yaşamaq arzusunun gerçəkləşməsi məhz ümummilli liderin yaratdığı, nəsillərə əmanət etdiyi, müstəqillikdən sonra ən böyük milli sərvətimiz saydığı sabitliklə bilavasitə bağlıdır. Onu qorumaq, möhkəmlətmək, dönməzliyini təmin etmək isə hər birimizin müqəddəs vəzifə və vətəndaşlıq borcudur.

Prezident İlham Əliyevin qazandığı ümummilli etimad və beynəlxalq dəstək Heydər Əliyev siyasi irsinin böyük qələbəsi, ölkəmizin uğurlu gələcəyinin təminatıdır. Respublikamızın rəhbəri, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev fəaliyyətinin əsas məğzini belə bəyan edib: "Azərbaycan xalqına vəd etmişəm ki, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm, çünki o, yeganə düzgün siyasətdir. Bu siyasət ona gətirib çıxartdı ki, Azərbaycan xaos, hərc-mərclik, vətəndaş müharibəsi vəziyyətindən quruculuq və tərəqqi, sülh və sabitlik mərhələsinə keçdi. Mən ondan çox şeyi öyrənmişəm və onun təcrübəsini, məsələlərə baxışını öyrənməklə hələ çox şeyi əxz edəcəyəm. Hər hansı bir qərar qəbul etməzdən əvvəl düşünürəm ki, bu vəziyyətdə Heydər Əliyev necə hərəkət edərdi. Çalışıram ki, mənə inanan, mənə səs verən adamlar məndən razı qalsınlar. Prezident üçün ən yüksək mükafat onun ideyalarına inamdır, bunsuz işləmək çox çətindir, ona görə də mən çalışacağam ki, Heydər Əliyevin bütün prinsipləri həyatda öz təcəssümünü tapmaqda davam etsin".

Xalqımız əmindir ki, Azərbaycanın yüksəlişinə və tərəqqisinə hesablanan bu ülvi məqsəd uğurla gerçəkləşəcək və Heydər Əliyev idealları Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin davamlı inkişafını, onun vətəndaşlarının firavan və xoş gələcəyini təmin edəcəkdir.

Bu şərəfli missiyanın həyata keçirilməsində daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyəti hər zaman öz Prezidentinin, Ali Baş Komandanının yanında olacaq, ulu öndərimizin bizlərə əmanət etdiyi müstəqil Azərbaycanın qüdrətlənməsi üçün üzərlərinə düşən məsul vəzifələrin öhdəsindən layiqincə gələcəkdir.

Heydər Əliyev isə möhtərəm Prezident vurğuladığı kimi: "Nə qədər ki, müstəqil Azərbaycan mövcuddur, bu dövlətin qurucusu da tariximizdə daim yaşayacaq və əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider örnəyi kimi xatırlanacaqdır!".

**"Azərbaycan".-**2013.-10 may.-N 100.-S.7.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI

**İsmət Abasov,**
Azərbaycan Respublikasının Kənd
Təsərrüfatı naziri.

**Ümummilli lider Heydər Əliyev Azərbaycanın bəşəriyyətə verdiyi ən böyük tarixi şəxsiyyətlərdən biridir. Heydər Əliyevin hər kəsə nümunə göstərilən həyat yolu qətiyyət, siyasi iradə nümunəsi kimi diqqət çəkir. Tarixi təcrübədən o da məlumdur ki, ümumbəşəri dəyərləri, zəngin dünyagörüşü, həyata baxışı ilə seçilən, dövlətçilik ənənələrini yaşatmağa və inkişaf etdirməyə qadir şəxsiyyətlər olmadan ictimai–iqtisadi həyatda sosial–iqtisadi sıçrayışa nail olmaq mümkün deyildir. Məhz ulu öndər Heydər Əliyev ən çətin və məsuliyyətli dövrdə Azərbaycanın müstəqilliyinin mövcudluğunu yaşatmaq kimi ağır bir missiyanı üzərinə götürdü. Onun fenomenal şəxsiyyət olduğu danılmazdır. Ulu öndərin siyasi fəaliyyətinin bütün mərhələlərində Vətənə, xalqa, torpağa bağlılıq, qurub–yaratmaq əzmi, milli ideyalara sadiqlik ən müqəddəs vəzifə kimi öndə olmuşdur.**

U lu öndərin Azərbaycan tarixində yeri və dövlətçiliyimizin qurulmasında əvəzsiz xidmətləri dövlət başçısı cənab İlham Əliyevin "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubeliyi haqqında" sərəncamında öz əksini daha dolğun tapmışdır.

Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir.

Sərəncamda ictimai–siyasi həyatımızın, iqtisadiyatımızın bütün sahələrində olduğu kimi, aqrar bölmənin inkişafmda da Heydər Əliyevin xidmətlərinə diqqət çəkilir və deyilir: "**Postsovet məkanında analoqu olmayan cəsarətli qərarları ilə Heydər Əliyev torpağın şəxsi mülkiyyətə verilməsi ilə ölkəmizin ərzaq təhlükəsizliyini təmin etmiş oldu. Bu gün müxtəlif kənd təsərrüfatı komplekslərinin uğurlu fəaliyyəti onun aqrar siyasətinin parlaq təzahürüdür".**

1969–cu ilin iyulunda Heydər Əlirza oğlu Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçiləndən sonra respublikanın kənd təsərrüfatı sahəsində siyasət kökündən dəyişdi. Azərbaycan KP MK–nın həmin ilin avqust ayında keçirilən plenumunda Heydər Əliyev proqram nitqi ilə çıxış edərək məruzəsində respublikanın ictimai–iqtisadi inkişafının əsas istiqamətlərini əsaslandırmaqla çıxışında kənd təsərrüfatına mühüm yer ayırdı.

Heydər Əliyev pambıqçılıq, üzümçülük, tərəvəzçilik, tütünçülük və çayçılıq sahələrində işlərin vəziyyətini hərtərəfli təhlil edib, kənd təsərrüfatının bu sahələrində mövcud nöqsanları və səhvləri göstərmiş, imkanları müəyyən etmiş, kənd təsərrüfatında məhsuldarlığın artırılmasının konkret yollarını təklif etdi. Respublikanın rəhbəri həmin plenumda yüksək məhsuldarlıqlı, xəstəliyə davamlı yerli bitki sortları yaratmağa imkan verən aqrar elmin nailiyyətlərinə, toxumculuq təsərrüfatlarının inkişafına, damazlıq təsərrüfatlarının işinin yaxşılaşdırılmasına və məhsuldar heyvanlar yetişdirilməsi məsələlərinə böyük diqqət yetirmişdir. Aqrar sahədə çalışan alimlərin qarşısında dənli bitkilər, pambıq, tərəvəz, meyvə və başqa məhsulların yetişdirilməsi, becərilməsi ilə əlaqədar mütərəqqi texnologiyaların işlənib hazırlanması və tətbiqi üzrə vəzifələr qoymuşdu.

Məhz Heydər Əliyevin şəxsi nüruzu sayəsində 1970–ci ilin iyulunda Sov. İKP MK və SSRİ Nazirlər Soveti "Azərbaycan SSR–in kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında" qərar qəbul etdi. Bu sənəd respublikada kənd təsərrüfatının sonrakı inkişafı üzrə konkret məsələləri müəyyən edən fəaliyyət proqramı oldu. Tezliklə kənd təsərrüfatının pambıqçılıq, taxılçılıq, üzümçülük, meyvəçilik, çayçılıq və heyvandarlıq kimi sahələrinin sonrakı inkişafı üzrə proqramlar işlənib hazırlandı. Bu proqramlarda ayrı–ayrı regionlarında bitkiçilik və heyvandarlıq sahələri üzrə ixtisaslaşmanın əsası qoyulmuşdu. Suvarılan əkinçiliyin respublikada kənd təsərrüfatının inkişafının əsasını təşkil etdiyini nəzərə alaraq, irriqasiya–meliorasiya qurğuları tikintisinin genişləndirilməsi, onların keyfiyyətinin yaxşılaşdırılması, şoran torpaqların yuyulması üzrə işlərin sürətləndirilməsi əsas vəzifələrdən biri hesab edilirdi. İstehsal proseslərinin kompleks mexanikləşdirilməsi və əməyin təçkilinin təkmilləşdirilməsi üzrə işlər də geniş vüsət almışdı. İttifaq hökuməti yuxarıda göstərilən məsələlərin həllini təmin etmək məqsədilə respublikaya texnika əldə etməsi üçün milyonlarla maliyyə vəsaiti,

ehtiyat hissələr, tikinti materialları, mineral gübrələr, bitkilərin xəstəliklərinə və zərərvericilərə qarşı mübarizə üçün kimyəvi preparatlar ayırmışdı.

1975–ci ilin iyulunda Sov.İKP MK və SSRİ Nazirlər Soveti "Azərbaycan SSR–də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında" yeni, ikinci bir qərar qəbul etdi.

Bu illərdə kənd təsərrüfatı istehsalında fəth edilmiş yüksək zirvələr perspektivdə həmin sahənin daha dinamik inkişafı üçün etibarlı bünövrə yaratmışdı. 1981–1985–ci illərdə kəndin iqtisadi və sosial inkişafı, xalqın maddi–rifahının daha da yaxşılaşdırılması üçün geniş və nəhayətsiz üfüqlər açılırdı. Azərbaycanda kənd təsərrüfatının ümumi məhsulunun orta illik həcmini 15–17 faiz, ictimai təsərrüfatda əmək məhsuldarlığını 10–15 faiz artırmaq nəzərdə tutulurdu. 1981–ci ildə kənd təsərrüfatının ümumi məhsulunun həcmi 1975–ci ildəkindən bir dəfə yarım çox planlaşdırılmışdı. Aqrar–sənaye kompleksinin inkişafına xüsusi diqqət yetirilir, bu işdə yeni istiqamətlər müəyyənləşdirilirdi. On birinci beşillikdə kənd təsərrüfatının inkişafına əsaslı vəsaitin həcmini 1.3 dəfə artırmaq, 80 min hektar yeni suvarılan torpaq sahəsi istifadəyə vermək, 90 min hektar sahənin meliorasiya vəziyyətini yaxşılaşdırmaq, 230 min hektar sahədə mövcud suvarma sistemini yenidən qurmaq, 135 min hektar otlaq sahəsinə su çəkilməsi planlaşdırılmışdı.

1981–1985–ci illərdə sahənin ümumi məhsulu 1966–1970–ci illərin orta göstəricilərinə nisbətən 2,5 dəfə artdı, taxılçılıqda istehsal 1,7 dəfə artaraq 1240 min ton, tərəvəzçilikdə 2,4 dəfə artaraq 891 min ton, pambıqçılıqda 2,2 dəfə artaraq 707 min ton, tütünçülükdə 2,7 dəfə artaraq 57 min ton, çayçılqda 3,2 dəfə artaraq 29 min ton, meyvəçilikdə 3,8 dəfə artaraq 318 min ton, üzümçülükdə 7,9 dəfə artaraq 1826,2 min ton oldu. Bu, həm də kənd təsərrüfatında böyük dönüş, yararlı torpaq sahələrinin sabit qalması şəraitində onlardan daha səmərəli istifadə edilməsi əsasında baş verirdi. Kənd təsərrüfatının bütün sahələrində olan irəliləyişlər Azərbaycan kəndinin sosial–iqtisadi simasını kökündən dəyişdirdi, ölkə bütövlükdə aqrar–sənaye respublikasına çevrildi.

1981–ci ildə respublikanın kənd əməkçiləri bütün əvvəlki illərin rekord nailiyyətlərini artırmışdır. İlk dəfə olaraq 1150,8 min ton taxıl, 831,2 min ton pambıq, 1 milyon 707,3 min ton üzüm, 849,5 min ton tərəvəz, 96,4 min ton bostan məhsulları, 25,5 min ton yaşıl çay yarpağı, 147,1 min ton mal–qara və quş əti, 835,9 min ton süd, 772,1 milyon ədəd yumurta və 11,3 min ton yun tədarük edilmişdi. 1981–ci ildə kənd təsərrüfatı üçün yararlı sahələrin hər 100 hektarı hesabı ilə ümumi məhsul alınması 1975–ci ildəkinə nisbətən 1,6 dəfədən çox, 1969–cu ildəkinə nisbətən isə 2,5 dəfə artmışdı.

1971–ci ilin əvvəllərində kolxoz və sovxozlarda istehsalın rentabelliyi 2 faizdən çox deyildi. 1975–ci ildə rentabellik kolxozlarda 21 faizə, sovxozlarda 24 faizə çatmışdı. 1981–ci ildə bu rəqəm müvafiq olaraq 38 və 35 faiz olmuşdur. On il ərzində rentabellik 18–19 dəfə artmışdır.

1976–1980–ci illərdə kolxoz və sovxozların xalis gəliri 1 milyard 959 milyon manata çatmış və 1971–1975–ci illərə nisbətən 2,2 dəfə, 1965–1970–ci illərə nisbətən isə 5,2 dəfə artmışdır.

Yuxarıda qeyd edildiyi kimi, yalnız intensiv amillər, yəni kənd təsərrüfatı bitkilərinin və mal–qaranm məhsuldarlığının yüksəldilməsi kənd təsərrüfatının sürətli inkişafı üçün həlledici şərt olmuşdur.

Lakin Sovet idarəetmə sisteminin və təsərrüfatçılığın yenidən qurulması sahəsində ötən əsrin 80–ci illərindən başlanmış işlərin respublika iqtisadiyyatına mənfi təsiri olmuşdur. Buna görə də ölkənin həll olunmamış iqtisadi və sosial problemləri getdikcə artırdı. İqtisadiyyatda durğunluq, istehsal əlaqələrinin dağılması, ticarətdə çatışmazlığın, cəmiyyətdə özbaşınalığın baş alıb getməsi, Qorbaçovun alkoqolizmin kökünün kəsilməsinə yönəldilmiş "islahatları" ölkəyə çox baha başa gəldi. Bu "islahatlar" nəticəsində SSRİ ərazisində, ən əsası Azərbaycanda ucsuz–bucaqsız üzüm plantasiyaları qırıldı.

1990–cı illərin əvvəllərində aqrar sahə iqtisadiyyatının göstəricilərinin təhlili göstərir ki, aqrar sahənin demək olar bütün istiqamətləri öz imkanlarından aşağı səviyyədə işləyir və bu da kənd təsərrüfatını iqtisadi depressiyaya gətirib çıxardı. Bunlarla yanaşı, bütün kənd təsərrüfatı bitkilərininin məhsuldarlığı aşağı düşmüşdü, əmək məhsuldarlığı kəskin azalmışdı.

1993–cü ilin iyununda xalqın təkidli tələbindən sonra dünyamiqyaslı görkəmli siyasətçi Heydər Əliyevin hakimiyyətə gəlişi ölkədə vəziyyəti əhəmiyyətli şəkildə dəyişdirdi. O, ilk növbədə vətəndaş müharibəsi təhlükəsini və erməni silahlı qüvvələri tərəfindən hərbi təcavüzü dayandırmağa nail oldu. Bunun nəticəsində respublikada iqtisadiyyatın böhrandan çıxarılması və daha sonra onun stabilləşdirilməsi üçün sabitlik yarandı. Bu ərəfədə yeni dövlətkonsepsiyası hazırlandı, qarşıya qoyulan mühüm siyasi və iqtisadi məsələləri nəzərə alaraq həmin konsepsiyanın həyata keçirilməsi tələb olundu.

Respublikanın kənd təsərrüfatını böhran vəziyyətindən çıxarmaq üçün mövcud olan böyük istehsal və iqtisadi potensialdan səmərəli istifadə edilməli, kənd təsərrüfatının spesifik xüsusiyyətlərini nəzərə almaqla iqtisadi mexanizm təkmilləşdirilməli idi. Bunun üçün aqrar bölmənin bazar münasibətlərinə keçilməsi əsas istiqamət götürülməklə, köklü islahatların həyata keçirilməsi, müxtəlif təsərrüfat formalarının təşkili və

mülkiyyət münasibətlərinin təkmilləşdirilməsi, çevik qiymət, vergi və kredit siyasəti yeridilməsi, əkinçilik və heyvandarlığın dünya təcrübəsinin nailiyyətləri və elmi əsaslarla inkişaf etdirilməsi, idarəetmədə iqtisadi amillərə üstünlük verilməsi vacib idi.

Respublikamızda aqrar islahatların hüquqi bazasının yaradılması, onun təşkili və həyata keçirilməsində ümummilli lider Heydər Əliyev misilsiz xidmət göstərmiş və əslində, o, bu mühüm dövlət, siyasi və iqtisadi tədbirin həm banisi, həm də təşkilatçısı olmuşdur.

Məhz aqrar bölmədə istehsalın mövcud vəziyyəti, sosial–iqtisadi şəraitin spesifikliyi, milli və tarixi xüsusiyyətlər, adət və ənənələr nəzərə alınaraq iqtisadi islahatları həyata keçirməklə bazar iqtisadiyyatına keçməyin əsas istiqamətləri müəyyənləşdirilmişdir. Hələ 1992–ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda respublikada ilk dəfə olaraq ictimai təsərrüfatlarda islahata başlanılmış və yeni özəl təsərrüfat qurumları yaradılmışdı. Bu təcrübə sonralar, 1993–cü ildə respublikada aqrar islahatların aparılmasına hazırlıq dövründə nümunə rolunu oynadı və müxtəlif bölgələrdə kəndlilərin birləşdiyi kəndli (fermer) təsərrüfatlarının yaradılması ilə nəticələndi.

Hələ 1994–cü il martın 4–də Prezident sarayında keçirilən müşavirədə Heydər Əliyev demişdir: "**Bildiyiniz kimi, respublikamız ağır iqtisadi–sosial böhran içərisindədir. Respublikanın iqtisadiyyatının və sosial həyatının bütün sahələrini bürüyən bu böhran, təəssüf ki, ilbəil dərinləşir, ölkənin həyatına onun mənfi təsiri güclənir. Mən respublikanın bu vəziyyətdə olması barədə öz fikirlərimi dəfələrlə demişəm, təkrara ehtiyac yoxdur. Ancaq qısaca bir də qeyd etmək istəyirəm ki, respublikanın böhran vəziyyətində, müharibə şəraitində olması müstəqil Azərbaycanı həddindən ziyadə vəziyyətə salmışdır. bunlar hamısı əhalinin həyat tərzinə mənfi təsir edir və ümumiyyətlə, respublikanın bu günü və gələcəyi üçün çox böyük çətinliklər yaradır. Ancaq eyni zamanda xalqımız, ictimaiyyət bilməlidir ki, Azərbaycanın daxili imkanları çox böyükdür, böhran vəziyyətindən çıxmaq üçün mümkünatlar var. Biz imkanların hamısını işə salmalı, onlardan səmərəli istifadə etməli və respublikamızı bu ağır vəziyyətdən çıxarmalıyıq**.

Heydər Əliyev Azərbaycan Respublikasının rəhbəri kimi aqrar sahənin mövcud problemləri ilə dərindən məşhul olmağa başlayaraq yaranmış şəraitdə sahənin böhrandan çıxarılması yolunun ancaq köklü aqrar islahatların aparılmasında olduğunu bir daha müəyyən etdi.

A zərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müdrik və uzaqgörənliklə sanballı qərarlar qəbul etdi. İslahatı aparmaq üçün Azərbaycan Respublikası Prezidentinin 2 mart 1995–ci il tarixli fərmanı ilə Dövlət Aqrar İslahatı Komissiyası yaradıldı. Komissiyanın tərkibinə nazirlik, komitə, şirkət rəhbərləri və alimlər daxil edilmişdi. Komissiyanın 25 mart 1995–ci il tarixli ikinci iclasında Naxçıvan Muxtar Respublikası Aqrar İslahatı Komissiyasının, rayon və yerli aqrar islahatı komissiyalarının əsasnamələrini, dövlət mülkiyyətində saxlanılan və bələdiyyə mülkiyyətinə verilən obyektlərin siyahısını, islahat qanunlarının tətbiqi üçün təlimatları, tövsiyələri və digər sənədləri təsdiq etmişdir.

Kənddə inqilabi dəyişikliklərin başlanmasına start verən bu qərarlardan birinciləri 1995–ci il fevralın 18–də qəbul edilmiş "Sovxoz və kolxozların islahatı haqqında" və "Aqrar islahatının əsasları haqqında" qanunlardır. Bir il sonra "Torpaq islahatı haqqında" Qanun da qəbul olundu. Bu, postsovet məkanında ilk qətiyyətli aksiya idi və bu aksiyanın fəlsəfəsini Heydər Əliyev özü hamıdan yaxşı ifadə etmişdi: "Kənddə aqrar islahatlar aparmaq xətti götürmək, torpağı və mülkiyyəti əzəl sahiblərinə, torpaqda yaşayanlara və işləyənlərə qaytarmaq".

"Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 mart 1999–cu il tarixli fərmanı aqrar sahədə sahibkarlığın inkişafına böyük təkan vermişdir. Kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla, digər vergillərdən beş il müddətinə azad edildi və onlara neft məhsullarının pərakəndə satışında güzəştlər verildi. Sonradan Azərbaycan Respublikasının 28 noyabr 2003–cü il tarixli qanunu ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına vergi güzəştlərinin müddəti 2009–cu ilədək, Azərbaycan Respublikasının 25 noyabr 2008–ci il tarixli qanunu ilə isə 1 yanvar 2014–cü ilədək uzadılmışdır.

Ümumiyyətlə, indiyədək aqrar sahədə islahatların aparılmasına və onun daha da dərinləşdirilməsinə, mülkiyyət münasibətlərinin və sahibkarlığın formalaşdırılmasına dair Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin 100–dən çox fərman və sərəncamı, Milli Məclisin qanunları və digər normativ–hüquqi sənədlər qəbul olunmuşdur.

Əgər 1992–1995–ci illərdə kənd təsərrüfatında ümumi məhsul istehsalının həcmi orta hesabla aşağı düşürdüsə, artıq 1996–ci ildən başlayaraq (1997–ci il istisna olmaqla) bu göstərici ilbəil artmağa başlamış, 1999–2001–ci illərdə uyğun olaraq 7,0; 12,1; 11,1 faiz artmışdır.

Aqrar islahatların 1995–2003–cü illəri əhatə edən birinci mərhələsində kənd əhalisində torpaq və əmlaka sabitlik hissi artmış, əhalidə mülkiyyətçilik psixologiyası, insanların sərbəst fəaliyyətə, yaradıcılığa meyli güclənmişdir. Aqrar sektorda yeni istehsal münasibətləri formalaşdırılmış, bazar iqtisadiyyatı prinsiplərinə

uyğun bazar iqtisadiyyatı elementləri gücləndirilmiş, müasir texnika və texnologiyalar şəbəkəsi genişləndirilmişdir. Məhsul vahidinə çəkilən xərclərin azaldılmasına, qənaətə meyl artmış, israfçılığa qarşı şəxsi nəzarət gücləndirilmişdir. Kənd təsərrüfatında torpaq və əmlakdan səmərəli istifadəyə imkanlar artmış, iqtisadi tənəzzülün qarşısı alınmış, istehsalın dinamik inkişafına zəmin yaradılmışdır. Dünya standartlarının tələblərinə uyğun məhsul istehsalı və daxili bazarın qorunması üçün meyillər artmış, respublikanın təbii iqlim şəraitinə, kənd təsərrüfatının spesifik xüsusiyyətlərinə, adət, ənənə və vərdişlərinə uyğun ixtisaslaşmağa meyillər formalaşmağa başlamışdır. Fərdi marağın ölkənin ümumi marağı ilə əlaqələndirilməsinin təmin edilməsinə şərait formalaşmış, idarəetmə funksiyaları təkmilləşdirilmişdir.

Heydər Əliyevin hakimiyyətdə olduğu 1993–2003–cü illərdə aqrar sahə ilə bağlı 50–dən artıq normativ–hüquqi sənəd qəbul edilmiş, çoxsaylı fərman və sərəncamlar imzalanmışdır. Bu sənədlər aqrar islahatların gedişini sürətləndirmiş, kənd təsərrüfatı məhsullarının artırılmasını təmin etmiş, kənddə sahibkarlığın inkişafına təkan verilmişdir, nəticədə ölkədə xüsusilə çörək problemi həll edilmişdir.

Taxıl istehsalı ilbəil artmış, Azərbaycan aqrar sahədə, buğda və heyvandarlıq məhsulları istisna olmaqla, idxal edən ölkədən ixrac edən ölkəyə çevrilmişdir.

Bu tədbirlərin nəticəsində ölkənin aqrar–sənaye kompleksinin inkişafında keyfiyyətcə və məzmunca yeni bir mərhələnin təməli qoyuldu. 1995–ci ildən etibarən respublikada 1970 ictimai təsərrüfatda, həmçinin emal və aqroservis müəssisələrində islahat aparıldı, 3,4 milyon nəfərə və ya 872,0 min ailənin xüsusi mülkiyyətinə 1,4 milyon hektar torpaq, 830,0 min nəfərə isə əmlak payı verildi.

Ölkədə genişmiqyaslı tədbirlərin həyata keçirilməsində əsas məqsədlərdən, təxirəsalınmaz tədbirlərdən biri ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi olmuşdur. Azərbaycan Respublikasının Prezidenti, ulu öndər Heydər Əliyevin 2 mart 2001–ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı" qəbul olundu.

Proqramda əsas məqsəd ölkədə aparılan iqtisadi islahatların daha da dərinləşməsini, kənd təsərrüfatı məhsulları istehsalının artırılmasını və əhalinin ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılmasını həyata keçirmək olmuşdur. Bu proqram Azərbaycan Respublikasının ilk ərzaq təhlükəsizliyi proqramı olmaqla hökumətin ərzaq təhlükəsizliyi sahəsində öhdəlik və məqsədlərini əhatə etmiş və dövlətin maliyyə öhdəlikləri, habelə büdcə imkanları çərçivəsində həyata keçirilməsi nəzərdə tutulmuşdur. Ərzaq təhlükəsizliyi proqramı ilk növbədə yoxsulluğun azaldılmasını, insanların ərzaqla təminatını və ərzaq məhsullarından səmərəli istifadə edilməsini nəzərdə tutmuşdur.

Bu gün Azərbaycan Heydər Əliyevin müəyyən etdiyi yolla dönmədən irəliləyir. Bunu 2003–cü il oktyabr ayının 15–də xalqın böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçilmiş cənab İlham Əliyevin qətiyyətlə atdığı addımlar sübut edir. O, hələ yenicə formalaşmış Nazirlər Kabinetinin birinci iclasında Heydər Əliyev tərəfindən başlanmış aqrar siyasəti, yeni iqtisadi münasibətləri və sahibkarlığı inkişaf etdirməyi, aqrar islahatların ikinci mərhələsinə keçməyi, əhalinin maddi rifahının yaxşılaşdırılmasını qarşıya məqsəd qoymuşdur.

C ənab İlham Əliyevin 24 noyabr 2003–cü ildə "Azərbaycan Respublikasında sosial–iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında"kı sərəncamında, 11 fevral 2004–cü ildə "Azərbaycan Respublikası regionlarının sosial–iqtisadi inkişafı Dövlət Proqramının (2004–2008–ci illər) təsdiq edilməsi haqqında"kı fərmanda, 23 oktyabr 2004–cü il tarixli "Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" və "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" imzaladığı sərəncamlarda Azərbaycan kəndinin dirçəlişi üçün bir çox tədbirlər kompleksi öz əksini tapmışdır.

Ölkə Prezidenti tərəfindən aqrar sahəyə göstərilən çoxşaxəli dəstəyin nəticəsi olaraq 2012–ci ildə ölkədə kənd təsərrüfatı məhsullarının istehsalı əvvəlki illərdə olduğu kimi öz dinamik inkişafını davam etdirmiş və kənd təsərrüfatında ümumi məhsul istehsalı 5 milyard 120 milyon manat olmaqla keçən ilin müvafiq dövrünə nisbətən təxminən 6,0 faiz artmışdır. 2802,2 min ton dənli bitki məhsulları istehsal edilmiş, məhsul istehsalı 2011–ci ilə nisbətən 343,8 min ton və ya 14 faiz artmış, o cümlədən 1847,4 min ton buğda istehsal olunmuşdur. Buğdanın istehsalı keçən ilin müvafiq dövrünə nisbətən 206,4 min ton artmış, hər hektarın məhsuldarlığı 1,8 sentner artaraq 26,9 sentnerə çatmışdır.

Eyni zamanda əsas növ məhsulların da istehsalı artmışdır. 2012–ci ildə 968,5 min ton kartof, 1216,2 min ton tərəvəz, 810 min ton meyvə və giləmeyvə, 150,9 min ton üzüm istehsal edilmiş və 2011–ci ilə nisbətən kartof istehsalı 3,2 faiz, meyvə və giləmeyvə istehsalı 5,8 faiz, üzüm istehsalı 10,2 faiz artmışdır. 2011–ci ilə nisbətən iribuynuzlu mal–qaranın baş sayı 30,8 min baş artaraq 2 milyon 713 min başa, davarların sayı isə 105,9 min baş artaraq 8 milyon 665 min başa çatmışdır.

Heyvandarlıq məhsullarının istehsalı da dinamik olaraq artmışdır. 2012–ci ildə kəsilmiş çəkidə 285,6 min ton ət, 1720 min ton süd, 1226,7 milyon ədəd yumurta və 16,5 min ton yun istehsal edilmişdir. 2011–ci ilə nisbətən ət istehsalı 8,3 faiz, süd istehsalı 6 faiz, yumurta istehsalı 21,7 faiz və yun istehsalı 1,8 faiz artmışdır.

Həyata keçirilmiş tədbirlər nəticəsində 2012–ci ildə lizinqə götürülmüş və icarəyə verilmiş texnika və avadanlıqlardan istifadəyə görə sahibkarlar tərəfindən "Aqrolizinq" ASC–yə 28,05 milyon manat vəsait köçürülmüş və həmin vəsait yenidən texnikaların alınması üçün təkrar istifadə edilmişdir.

2012–ci ildə 21,0 milyon manatlıq kənd təsərrüfatı texnikaları, 31,77 milyon manatlıq texnoloji avadanlıqlar, 12,9 milyon manatlıq mineral gübrələr, 10,54 milyon manatlıq damazlıq heyvanlar alınmış və 10 milyon manata isə 10 rayon aqroservis filialının maddi–texniki bazası yaradılmışdır.

Heyvandarlıqda cins tərkibinin yaxşılaşdırılması üçün 2012–ci ildə "Aqrolizinq" ASC tərəfindən respublikaya 3020 baş cins damazlıq düyə gətirilərək fiziki və hüquqi şəxslərə lizinqə verilmiş və ya lizinq yolu ilə satılmışdır. Həmin damazlıq inəklərdən ildə orta hesabla 4 – 5 min kiloqramdan çox süd sağılmış, onların məhsuldarlığı yerli cinslərə nisbətən 3,0–3,5 dəfə artıq olmuşdur. Damazlıq mal–qaranın baş sayının artımı və cins tərkibinin yaxşılaşdırılması ölkədə ət və süd istehsalının artmasına imkan vermişdir.

Ölkədə yeni texnologiya əsasında iri südçülük kompleksləri yaradılır. Ağcəbədi rayonundakı "Aqat–aqro", Şəki rayonundakı "Şəki–aqroindastris", Qusar rayonundakı "Şahdah", Qəbələ rayonundakı "Aqrokompleks", "Qəbələ" və heyvandarlıq südçülük kompleksləri. Salyan rayonundakı "Hacı Camalxan" təsərrüfatının hər birində 800–2 hesabla 2–4 min ton süd istehsal olunur.

Respublikada sənaye quşçuluğu intensiv inkişaf yolundadır. Keçən il 7 yeni quşçuluq kompleksi istifadəyə verilmişdir. Sahibkarlığa kömək Milli Fondu tərəfindən quşçuluğun intensiv inkişaf etdirilməsinə son 2 ildə 70 milyon manat vəsait ayrılmışdır. Sənaye quşçuluğunda keçən il 62300 ton quş əti, 441 milyon ədəd yumurta, o cümlədən 60 milyon ədəd damazlıq yumurta istehsal olunmuşdur.

2012–ci ildə Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən aqrar bölmədə sahibkarlıq fəaliyyəti ilə məşqul olan fiziki və hüquqi şəxslərə 15,0 milyon manat kreditlər verilmişdir. Verilən kreditlərin 8,0 milyon manatı dövlət büdcəsinin vəsaiti hesabına, 7,0 milyon manatı isə qaytarılan vəsaitlər hesabına olmuşdur.

Beynəlxalq layihələr üzrə aqrar sahənin inkişafına 2012–ci ildə 19,0 milyon ABŞ dolları yönəldilmişdir.

Ölkədə toxumçuluq sahəsində əsaslı dönüş yaranmış, 2012–ci ildə ölkənin taxıl toxumuna olan tələbatı tam ödənilmiş, 198,3 min ton kondisiyalı taxıl toxumu istehsal edilmişdir. Toxumun 191,1 min tonu (96,4 faizi) özəl qurumlar tərəfindən istehsal edilmişdir.

İri özəl taxılçılıq təsərrüfatının yaradılması barədə respublika Prezidenti cənab İlham Əliyevin verdiyi tapşırıqla əlaqədar dövlət torpaq fondu hesabına Ağcabədi və Beyləqan rayonlarının inzibati ərazisində müvafiq olaraq 3300 hektar və 1500 hektar qış otlaq sahəsində və eyni zamanda Şəki rayonunun inzibati ərazisində 5560,1 hektar qış otlaq sahəsinin təyinatının dəyişdirilərək iri özəl taxılçılıq təsərrüfatının yaradılması qərara alınmış və bu işlə əlaqədar əlavə tədbirlər həyata keçirilir.

Aqrar sektorda fasiləsiz dövlət dəstəyi tədbirlərinin davam etdirilməsi, intensiv metodlara və müasir texnologiyalara əsaslanan kənd təsərrüfatı məhsullarının istehsalı və emalının genişləndirilməsi, əsasən bitkiçilik və emal məhsullarının ixracının artırılması, aqrar sektorda modernləşmənin həyata keçirilməsi dövlət başçısının daim diqqətindədir.

Respublikamızda qəbul olunmuş Dövlət proqramları, konsepsiya və strategiya xarakterli sənədlərin əməli surətdə icra olunması ölkə iqtisadiyyatının yüksələn xətlə inkişafını təmin etmişdir.

2004–2012–ci illər ərzində ölkə başçısı tərəfindən imzalanmış çoxsaylı fərman və sərəncamların icrası kənd təsərrüfatı və emal sənayesinin dinamik inkişafını təmin etmişdir.

2013–cü ilin 1–ci rübündə kənd təsərrüfatında ümumi məhsul istehsalı keçən ilin müvafiq dövrünə nisbətən 4,4 faiz artmış, o cümlədən artım bitkiçilikdə 6,5 faiz və heyvandarlıqda isə 4,3 faiz təşkil etmişdir.

Hazırda ötən ilin payızında dən məqsədi ilə əkilmiş 997 min 402 hektar payızlıq taxıl, o cümlədən 690 min 455 hektar buğda əkinlərinə aqrotexniki qulluq işləri, xüsusilə, suvarma, alaqlara qarşı mübarizə və azotla yemləmə gübrəsi verilməsi davam etdirilir. Müşahidələrimiz göstərir ki, payızlıq taxıl əkinlərinin vəziyyəti qənaətbəxşdir.

Cari ilin yekununa cəmi 2 milyon 970 min ton dənlilər, o cümlədən 1 milyon 940 min ton buğda istehsal ediləcəyi gözlənilir. Bu da ötən ilə cəmi dənlilər üzrə 6,0 faiz, buğda üzrə 5,0 faiz artıqdır.

Bölgələrimizdə yazlıq bitkilərin də səpininə başlanmışdır. Cari ildə cəmi 385 min hektar sahədə yazlıq bitkilər əkilməsi gözlənilir ki, bu da ötən ildəkindən (377,4 min hektar) 2 faiz çox deməkdir.

Artıq 2013–cü il aprelin 1–i vəziyyətinə 112 min hektardan artıq sahədə yazlıq bitkilər əkilmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 7,1 faiz yüksəkdir. Səpin davam etdirilir.

Cari ildə yaz–tarla işlərinin mütəşəkkil keçirilməsi üçün həmişə olduğu kimi, qərargah və qaynar telefon xətti yaradılmışdır. Kənd təsərrüfatı texnikasının, o cümlədən taxılbiçən kombaynların boş dayanmaların qarşısının alınması üçün səyyar texniki xidmət və səyyar yanacaqdoldurma avtomaşınları hazırlıq səviyyəsinə gətirilmiş, lazım gəldiyi təqdirdə kombaynların dislokasiyası əməliyyatı keçiriləcəkdir.

Əhalinin ərzaq məhsullarına olan tələbatının daxili istehsal hesabına ödənilməsi üçün toxumçuluq və tingçiliyin inkişafı, qabaqcıl aqrotexniki tədbirlərin, o cümlədən müasir tələblərə cavab verən səpin, becərmə və suvarma texnologiyalarının tətbiqi və heyvandarlığın intensiv inkişafının təşkili nazirliyin qarşısında duran prioritet vəzifələrdəndir.

“2008–2015–ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nda nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsi üçün hər hektar sahədən yüksək məhsuldarlıq əldə edilməsi məqsədilə kompleks tədbirlərin həyata keçirilməsini vacib məsələlərdən biri sayırıq.

“Dövlət və özəl toxumçuluq təsərrüfatlarının inkişafı”da ön plana çəkilmiş və indiyədək 370 özəl toxumçuluq və tingçilik təsərrüfatları yaradılmışdır ki, bunlar da təsərrüfat subyektlərinin yüksək kondisiyalı toxumlara olan tələbatını tam təmin edirlər.

Kənd təsərrüfatının mühüm sahəsi olan heyvandarlıqda son illər naxırın cins tərkibinin yaxşılaşdırılması istiqamətində görülmüş işlər məhsul istehsalına öz müsbət təsirini göstərmişdir. Belə ki, cari ilin 3 ayında keçən ilin müvafiq dövrünə nisbətən qaramalın baş sayı 1,8 faiz, qoyun və keçilərin baş sayı 1,7 faiz, ət istehsalı (diri çəkidə) 2,5 faiz, süd istehsalı 2,9 faiz artmış, 2475 ton ət, 27,5 min ton süd çox istehsal edilmişdir.

Heyvandarlığın intensiv inkişaf etdirilməsində xüsusi rol oynayan damazlıq işi ildən–ilə genişləndirilmişdir. Hazırda süni mayalama mərkəzi fəaliyyət göstərir və indiyədək 500 nəfər süni mayalama texniki hazırlanmış və onlar müvafiq avadanlıq və cihazlarla, nəqliyyat vasitələri ilə təmin edilmişlər. Süni mayalanma üsulu ilə alınan inəklərin hər birindən ildə orta hesabla 3000–3500 kiloqram süd sağılır. Lakin tamamilə süni mayalama tətbiq olunmuş Şəkinin “Aqroindastris” heyvandarlıq kompleksində hər inəkdən ötən il orta hesabla 6 min kiloqram süd sağılmışdır.

Heyvandarlıq məhsullarının istehsalının artırılmasında onların saxlama şəraitinin və yemləndirilməsinin yaxşılaşdırılması ilə yanaşı, heyvanların cins tərkibinin yaxşılaşdırılması ilə bağlı xaricdən gətirilən cins mal–qaranın əhəmiyyətli rolu olmuşdur. 1 aprel 2013–cü ilə “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən respublikaya 6216 baş cins damazlıq düyələr gətirilmiş, təsdiq edilmiş qaydalara müvafiq olaraq hüquqi və fiziki şəxslərə lizinqə verilmiş və ya lizinq yolu ilə satılmışdır. Hazırda bu heyvanların sayı 11 min başa çatmışdır.

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” 11 fevral 2013–cü il tarixli 2713 nömrəli sərəncamı ilə Prezidentin Ehtiyat Fondundan “Aqrolizinq” ASC–yə ayrılmış 10,0 milyon manatın 800,0 min manatı Naxçıvan Muxtar Respublikası üçün nəzərdə tutulmuş, qalan 9,2 milyon manat və cəmiyyətə təkrar istifadədən daxil olmuş 2,0 milyon manat, cəmisi 11,2 milyon manat dəyərində Holştin–friz ətlik istiqamətli və Şarole ətlik–südlük istiqamətli, Simmental cinsli damazlıq heyvanların alınması üçün Səhmdar Cəmiyyət tərəfindən satınalmalar proseduru həyata keçirilir.

“Azərbaycan Respublikası regonlarının 2009–2013–ci illərdə sosial–iqtisadi inkişafı Dövlət Proqram”ının icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda, bu il yanvarın 15–də Nazirlər Kabinetinin 2012–ci ilin sosial–iqtisadi inkişafının yekunlarına və 2013–cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında, habelə aprelin 14–də Nazirlər Kabinetinin bu ilin birinci rübünun sosial–iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında, regionlara səfəri zamanı etdiyi çıxışlarda dövlət başçısı həmişə aqrar bölməni prioritet sahə kimi, onun qarşısında duran vəzifələri, o cümlədən daxili bazarın rəqabətqabiliyyəyli məhsullarla təmin edilməsini, iqtisadiyyatın artması ilə bağlı bu məhsulların xarici bazarlara çıxışının sürətləndirilməsini, ixrac edilən məhsulların nomenklaturasının artırılmasını, fermerlərin elektron qeydiyyatının aparılmasını, bitkiçilikdə və heyvandarlıqda intensiv metodların tətbiqini, aqrar sahə üzrə orta texniki peşə müəssisələrinin yaradılması məsələsinə baxılmasını bir daha önə çəkmişdir.

D övlətimizin dəstəyinə söykənən bu aqrar bölmədə çalışan fermerlər, alimlər, mütəxəssislər, sahənin çoxminli kollektivi bundan sonra da ölkədə ərzaq bolluğunun təmin edilməsinə öz layiqli töhfələrini verəcəklər.

**“Respublika”.-**2013.-10 may.-N 99.-S.5.

# ÜMUMMİLLİ LİDERİN HÜQUQİ BAXIŞLARININ AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINDA TƏZAHÜRÜ

**Ramiz Rzayev,**
Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri.

Dövlət və hüququn ictimai–iqtisadi quruluşa xas olan bir formasından digərinə keçid mahiyyətinə görə olduqca mürəkkəb, çoxtərəfli, dövlət və hüquqda, həmçinin ictimai–siyasi həyatda baş verən kifayət qədər ziddiyyətli prosesdir. Bu prosesin mərkəzində dayanıb və bir qayda olaraq prosesə böyük təsir göstərən dövlət bir–biri ilə qarşılıqlı əlaqədə olan və bir–birini tamamlayan iki qrup kompleks vəzifəni həll edir. Bu vəzifələrdən bir qrupu dövlət mexanizminin — onun mahiyyətinin, məzmununun, formasının, fəaliyyət metodunun, strukturunun yenidən qurulması ilə əlaqədardır. Digər qrup vəzifələr cəmiyyətin dəyişdirilməsinə, iqtisadiyyatda islahatlar, xarici və daxili siyasətin yeni istiqamətlərinin müəyyən edilməsi, yeni rəsmi idealogiyanın yaradılması ilə bağlıdır.

Keçid dövründə dövlətin fəaliyyətinin əsas istiqamətləri qarşıda duran vəzifələrin xarakter və növündən birbaşa asılıdır. Dövlətin fəaliyyətinin əsas istiqamətlərinin məzmunu və həll etdiyi vəzifələr konkret cəmiyyətin inkişafının tarixi təcrübəsi, konkret ölkənin iqtisadiyyatının inkişaf səviyyəsi, cəmiyyətdə formalaşmış münasibətlərin xarakter və növü ilə şərtlənir.

Dövlətin qarşısında yeni maliyyə sisteminin yaradılması zəruriliyi, ölkənin təhlükəsizliyinin təmini, hüquq sisteminin köklü dəyişikliyi kimi xüsusi vəzifələr durur. Dövlət bu dövrdə həyata keçirilən iqtisadi və sosial–siyasi islahatların dinamizmini, cəmiyyət daxilində və dövlətdə stabilliyi təmin etməklə yanaşı, həyatın bütün sahələrində tam müstəqilliyini qorumalı və xarici təsirlərdən qeyri–asılılığı təmin etməlidir.

Keçid dövründə dövlət və cəmiyyətdə əvvəllər heç vaxt olmayan inamsızlıq və tərəddüdlər baş verdiyinə, mərkəzdənqaçma qüvvələri gücləndiyinə, dağıdıcı proseslər sürətlə inkişaf etdiyinə görə dövlətin dağılması və cəmiyyətin süqutu ehtimalı dəfələrlə artır. Odur ki, həmin mərhələdə dövlət yalnız yenidənqurma fəaliyyətinə deyil, həm də mühafizə funksiyasına önəm verməli, özünü, iqtisadiyyatı və cəmiyyəti süqut etməkdən qorumalıdır.

Ulu öndər Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə qayıdışı ölkənin ağır keçid dövrünə təsadüf etdi. Tarix üçün son dərəcədə qısa olan bir müddətdə keçid dövrünün səmt küləklərinin hakimiyyətə gətirdiyi, dövlət idarəçiliyi sahəsində təcrübəsi olmayan insanların ölkəni böhrandan çıxarmaq üçün rəhbərliyə dəvət etdikləri ulu öndərin qarşısında çətin — müstəqilliyin qorunub saxlanılması, erməni təcavüzünün dayandırılması, vətəndaş müharibəsinin qarşısının alınması, ərazi bütövlüyünün təmini, cinayətkarlıqla mübarizə, dağılmış iqtisadiyyat və maliyyə sisteminin bərpası, sabitliyin təmini, hüquq sistemində dəyişikliklərin həyata keçirilməsi, yeni qurulan demokratik dövlətin hüquqi əsaslarının yaradılması kimi vəzifələr dururdu. Dövlətin hüquqi əsaslarının yaradılması müstəqil, demokratik Azərbaycan dövlətinin konstitusiyasının hazırlanıb qəbul edilməsi ilə birbaşa bağlı idi.

Ulu öndər konstitusiya komissiyasının ilk iclaslarında komissiyanın sədri kimi Azərbaycanın əvvəlki konstitusiyalarının təhlilini verərək yeni qurulan müstəqil Azərbaycan Respublikasının konstitusiyasının qəbul edilməsinin zəruriliyini əsaslandırmış, konstitusiyada ifadəsini tapmasını vacib hesab etdiyi əsas məqamları komissiya üzvlərinin nəzərinə çatdırmışdı: "İndi biz müstəqil Azərbaycan Respublikasının, Azərbaycan dövlətinin ilk konstitusiyasını qəbul edirik. Bizim yeni konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir". Ulu öndər konstitusiyanın demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu proseslərini və bunu təmin etmək üçün bütün şərtləri, müddəaları özündə əks etdirməli olmasını ümumi şəkildə qeyd etməklə kifayətlənməyib, həmin məfumların nəyi ifadə etməsini sadə, anlaşıqlı dildə izah edirdi: "Demokratiya prinsipləri geniş məfhumdur. Əgər bu, bir tərəfdən insanların, vətəndaşların hüquqlarının təmin edilməsi prinsipləridirsə, ikinci tərəfdən dövlətçiliyin qurulmasını, dövlət quruculuğu prosesinin aparılmasını, inkişaf etdirilməsini və Azərbaycanda həm dövlətin, həm xalqın, həm də hər bir vətəndaşın hüquqlarının qorunmasına təminat verə bilən dövlətin qurulub yaranmasını təmin edən prinsiplər olmalıdır.

Konstitusiya gərək elə bir konstitusiya olsun ki, bir tərəfdən insanların hüquqlarını qorusun, insan azadlıqlarını, demokratiyanı təmin etsin, siyasi plüralizmi təmin etsin, mətbuat, söz, din, dil azadlığını təmin etsin, ikinci tərəfdən isə dövləti, cəmiyyəti idarə etmək üçün təsisatların yaranmasını təmin etsin".

Müstəqil Azərbaycan dövlətinin konstitusiyasında ifadəsini tapan bir çox müddəalar, əslində Ulu öndərin ideya və baxışlarının, hüquqi düşüncələrinin, uğrunda mübarizə apardığı, xalqının xoşbəxt gələcəyini gördüyü amalların hüquq normalarında təcəssümü idi.

Ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanan konstitusiya bir sıra xüsusiyyətləri ilə səciyyələnirdi.

Əvvəla, Konstitusiya xalqın iradəsini əks etdirməklə xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olmasını hüquqi cəhətdən rəsmiləşdirdi.

Heç vaxt özünü xalqdan ayırmayan, daim xalqına, onun gücünə və qüdrətinə arxalanan ulu öndər xalqın iradəsi ilə və xalqa xidmət etmək üçün hakimiyyətə gəlməsini təkrar–təkrar qeyd edir, — həyatının son dəqiqəsinədək xalqına xidmət edəcəyini və ömrünün sonrakı illərini də xalqına bəxş etdiyini bildirirdi. "Azadlıq, müstəqillik ideyası bizim, xalqımızın ideyasıdır…Öz müstəqilliyini möhkəmləndirmək və onu bu müstəqillikdən məhrum etmək üçün indən belə heç kimə imkan verməmək — Azərbaycan xalqının iradəsidir", — deyən ulu öndərin kəlamları bir vaxtlar Amerika Birləşmiş Ştatlarının prezidenti A. Linkolnun söylədiyi və indi demokratik dövlətin devizi kimi qəbul edilən "…xalqın idarəçiliyi, xalqın iradəsi və xalq naminə görülən işlər heç vaxt yer üzündən silinməyəcəkdir" ifadəsi ilə həmahənglik təşkil edir. Məhz bu baxımdan Konstitusiyanın birinci fəslinin xalq hakimiyyətinə həsr olunması və 1–ci maddədə "Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır" ifadəsinin əks olunması həm Azərbaycan xalqının, həm də bu xalqın ümummilli lideri statusunu qazanmış Heydər Əliyevin iradəsinin ifadəsi kimi qəbul olunmalıdır. Ümummilli lider konstitusiya layihəsindən bəhs edərkən göstərirdi ki, layihənin "əsas məzmunu ondan ibarətdir ki, o, xalqın iradəsini ifadə edir, Azərbaycanın dövlət quruluşunun təsirlərini, hüquqi əsaslarını yaradır, Azərbaycanda dövlətin idarəetmə prinsiplərini əks etdirir, dövlət ilə xalq arasında olan münasibətləri əks etdirir və müstəqil Azərbaycan Respublikasında hüquqi, demokratik, dünyəvi dövlətin qurulması üçün bütün hüquqi əsasları yaradır. Onun bütün maddələri xalqın iradəsini ifadə edir. Hakimiyyətin mənbəyi xalqdır — bu əsas anlayış burada bariz şəkildə öz əksini tapıbdır".

Ulu öndər hesab edirdi ki, yeni yaranan konstitusiya müstəqil Azərbaycan Respublikasının Konstitusiyası olması və Azərbaycan xalqının iradəsini ifadə etməsinə görə əvvəlki bütün konstitusiyalardan fərqlənir və tarixi əhəmiyyət kəsb edir.

"Dövlət xalqsız ola bilməz. Xalq isə ayrı–ayrı insanlardan, vətəndaşlardan ibarətdir… Azərbaycan xalqı vahid xalqdır. Azərbaycanın dövlət siyasəti azərbaycançılıq əsasında qurulubdur. Biz hamımız, hansı bölgədən olmağımızdan asılı olmayaraq, azərbaycanlı kimi on illərlə, yüz illərlə belə böyümüşük. Heç vaxt deməmişik bunun kökü nədir" – deyən ulu öndər Heydər Əliyevin fikirləri Konstitusiyanın 5–ci maddəsində aşağıdakı kimi ifadəsini tapmışdır: "Azərbaycan xalqı vahiddir. Azərbaycan xalqının vahidliyi Azərbaycan dövlətinin təməlini təşkil edir. Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz vətənidir".

İkincisi, konstitusiya vasitəsi ilə dövlət və ictimai quruluşun yeni hüquqi bazası — konstitusiya əsasları yaradıldı.

Konstitusiyanın dövlətin əsaslarını müəyyən edən fəslinin birinci (Konstitusiyanın 7–ci) maddəsində Azərbaycan dövlətinin demokratik, hüquqi, dünyəvi, unitar respublika olması ifadəsi əksini tapdı. Müstəqil Azərbaycan dövlətinin demokratik dövlət quruculuğu yolu ilə inkişafa, nailiyyətə qovuşacağını ulu öndər hələ sovet hakimiyyətinin süquta uğradığı ilk illərdən müəyyən etmişdi: "Azərbaycanın demokratiya yolu ilə getməsi üçün ilk addımları mən atdım. Azərbaycanda hörmətli adam olduğuma görə Kommunist Partiyasının və Sovet İttifaqının dağılması haqqında mənim çıxışlarım insanları inandırırdı. Mən o vaxtdan Azərbaycanı demokratik, müstəqil dövlət görmək istəyirəm".

Müstəqilliyi xalq, dövlət üçün ən ülvi dəyər hesab edən ulu öndər göstərirdi: "…bizim xalqımızın tarixində, ölkəmizin tarixində dövlət müstəqilliyini əldə etmək kimi bir nailiyyət olmayıbdır. İndiyə qədər hər bir azərbaycanlı üçün bu qədər böyük xoşbəxtlik — dövlət müstəqilliyi kimi böyük bir xoşbəxtlik olmayıbdır". Ulu öndərin müstəqilliyə bu cür dəyər verməsi müstəqilliyi demokratik dövlət quruculuğunun ilkin şərti hesab etməsi ilə bağlı idi. Təbii ki, müstəqil olmayan, daxili və xarici siyasətini müstəqil müəyyən edə bilməyən dövlətdə demokratiyanın bərqərar olması, insanların dövlətin idarəçiliyində birbaşa iştirakı, ictimai–siyasi həyatın vacib məsələlərini xalqın iradəsi, fikir müxtəlifliyinin nəzərə alınması əsasında həll edilməsi mümkün deyildir.

Ümummilli lider Heydər Əliyev ilk növbədə respublikamızın müstəqil bir dövlət kimi hansı siyasi, ictimai, iqtisadi sistem üzrə gedəcəyinin mühüm əhəmiyyətini vurğulayaraq qeyd edirdi: "Yolumuz demokratiya yoludur, biz demokratiya yolundan dönməməliyik. Bizim yolumuz siyasi plüralizm yoludur, biz bu yoldan dönməməliyik. Biz Azərbaycanda çoxpartiyalı sistem, çoxpartiyalı cəmiyyət üçün şərait yaratmalıyıq. Əmin olun ki, mən bu mövqeyimdən dönməyəcəyəm. Azərbaycanda insan azadlığı, təşəbbüs azadlığı, din azadlığı, dil azadlığı, sahibkarlıq azadlığı — bütün azadlıqlar təmin olunub. İnsan hüquqları, insan haqları qorunmalıdır. Azərbaycan müstəqil dövlət kimi öz vətəndaşlarının hüquqlarını qorumağı əsas vəzifələrindən biri hesab etməlidir. Azərbaycan keçmiş kommunist rejiminə, sosialist sisteminə, keçmiş iqtisadi–siyasi sistemə qayıtmamalıdır". Ulu öndər eyni zamanda demokratik prinsiplərin bərqərar edilməsini dövlətin bütün vəzifəli şəxslərinin, dövlət orqanlarının və dövlətin əsas vəzifəsi hesab edirdi: "Azərbaycan bundan sonra öz dövlətini demokratik prinsiplər əsasında qurmalıdır və dövlət orqanları cəmiyyətdə demokratik prinsiplərin bərqərar olması üçün təminat yaratmalıdırlar… Azərbaycan Respublikası bundan sonra bütün demokratik prinsiplərə sadiq qalacaq, onların həyata keçirilməsini təmin edəcəkdir və hamımız birlikdə Azərbaycanı böyük bir demokratik respublika kimi dünya demokratiyasına uyğun səviyyəyə çatdıraraq dünya mədəniyyətinə, dünya ictimaiyyətinə tanıtdıra biləcəyik… Azərbaycan Respublikası demokratiya yolu ilə getməlidir və heç vaxt totalitar sistemə, kommunist rejiminə qayıtmamalıdır. Azərbaycan Respublikasında siyasi partiyaların fəaliyyət göstərməsinə şərait yaranmalıdır və siyasi plüralizm hökm sürməlidir. Hürriyyət insan üçün ən əsas şərtlərdən biridir. İnsan hüquqlarının qorunması bizim əsas məqsədlərimizdən biri, dövlət orqanlarının, hüquq — mühafizə orqanlarının əsas vəzifələrindən biri olmalıdır".

Dövlətin mövcudluğunun maddi əsasını onun müəyyən əraziyə malik olması təşkil edir. Ərazi toxunulmazlığı və bütövlüyü dövlətin mövcudluğunun təbii və zəruri şərtidir. Ərazi bütövlüyü prinsipi dövlətin ərazi aliliyinə əsaslanan dövlət suverenliyindən irəli gəlir, dövlətin öz ərazisi üzərində hökmranlığını təmin edir. Konstitusiya müəyyən edir ki, Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz, vahid, toxunulmaz və bölünməzdir. Dövlət sərhədləri xalqın iradəsinə zidd olaraq dəyişdirilə bilməz.

Ulu öndər Konstitusiyada Azərbaycan Respublikasının ərazi bütövlüyünün, respublikamızın bölünməzliyinin, hakimiyyətin heç bir qüvvə tərəfindən mənimsənilə bilməzliyinin ifadəsini tapmasına da önəm verirdi: "Bu konstitusiya layihəsinin ən əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycan Respublikasının tam müstəqilliyini təmin edir, ölkəmizin ərazi bütövlüyünü təmin edir, Azərbaycan xalqının hüquqlarının toxunulmazlığını təmin edir, vətəndaşlarımızın hər birinin hüquqlarının qorunmasını təmin edir və Azərbaycan xalqının, respublikamızın bölünməzliyini, hakimiyyətin heç bir qüvvə tərəfindən mənimsənilə bilməzliyini təmin edir".

Dövlətin əsasları ilə bilavasitə bağlı olan dövlət dili, silahlı qüvvələr, dövlətin rəmzləri ilə əlaqədar məsələlərə Ulu öndər önəm verirdi.

Azərbaycan Respublikasının Konstitusiyasının 21–ci maddəsi dövlət dilinin Azərbaycan dili olmasını təsbit etdi. Ulu öndər Azərbaycan dili məsələsini təkcə dil məsələsi deyil, azərbayçanşılıq məsələsi kimi dəyərləndirirdi: "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı–ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində ədəbiyyat da olmaz, Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunlar hamısı biri–biri ilə bağlıdır. Ona görə bu beş ildə Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, azərbaycançılıq məsələsidir".

Konstitusiya müəyyən etdi ki, Azərbaycan dövləti öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə silahlı qüvvələr və digər silahlı birləşmələr yarada bilər. Ulu öndər öz növbəsində ordunun yaradılmasını, dövlətin təhlükəsizliyinin təminini ən əsas vəzifə kimi dəyərləndirir, bunu müqəddəs borc, müstəqilliyin əsas şərtlərindən biri hesab edirdi: "Ordu quruculuğu, ordu yaratmaq hər birimizin müqəddəs borcudur. Biz bunu bilməliyik. Xüsusən müstəqillik haqqında həddindən artıq düşünən, müstəqillik arzusunda olan adamlar bilməlidirlər ki, güclü ordusuz müstəqillik ola bilməz. Ordunu yaratmaq, onu həqiqi orduya, torpaqlarımızı etibarlı müdafiə edə bilən qüdrətli orduya çevirmək bizim müqəddəs borcumuzdur. Ola bilər çörəyimiz də olmasın, yeməyimiz də olmasın. Ola bilər ac qalaq, ola bilər paltarımız da olmasın, amma gərək ordumuz olsun…Biz müstəqil dövlətik. Müstəqil dövlətin özünəməxsus qüdrəti olmalıdır. Bu qüdrətin əsasını xalq və onun bir hissəsi olan ordu təşkil edir. Bizim güclü ordumuz olmalıdır. Güclü ordu ona görə lazımdır ki, biz sülh danışıqlarını cəsarətlə apara bilək. Qüdrətli ordumuz olmalıdır ki, biz ərazimizin təhlükəsizliyini daim qoruya bilək, öz torpaqlarımızı, ölkəmizi müdafiə edək. Bizim qüdrətli, möhkəm ordumuz olmalıdır, ona görə ki, müstəqil Azərbaycan dövləti daim qüdrətli olsun".

Azərbaycan Respublikası Konstitusiyasının "Dövlətin əsasları" fəslində dövlətin rəmzləri kimi Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himninə yer ayrılmışdır. Ulu öndər Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörməti Vətənə, xalqa, dövlətə olan məhəbbət və hörmətə bərabər tuturdu: "Azərbaycanın bayrağı sadəcə bayraq deyil. O bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir… Hansı ölkəyə gediriksə–gedək, Azərbaycan bayrağının o ölkədə asılması həm Azərbaycanın orada təmsil olunmasını göstərir, həm də bizim ölkəmizi tanıdır, eyni zamanda bizdə böyük iftixar hissi doğurur.

Bu bizim müstəqilliyimizin rəmzidir. Ona görə də gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin. Onda bayrağa olan məhəbbət eyni zamanda Vətənə, xalqa dövlətə olan məhəbbətə bərabər olsun.

Azərbaycanın gerbini təbliğ etmək lazımdır. Azərbaycanın gerbi bayraq ilə bərabər, bizim dövlət müstəqilliyimizi təmsil edən atributdur. Azərbaycanın gözəl himni var…Hər ölkənin himni özünə görə əzizdir.. Öz xalqının musiqisini, mənəvi xüsusiyyətlərini əks etdirir. Bu təbiidir… Himn çalınan vaxt insanlar sözlərini oxumalıdırlar. Bunlar da insanlarda vətənpərvərlik hissinin daha da möhkəmlənməsinə kömək edir. Eyni zamanda bu ona görə vacibdir ki, himnimizə xüsusi hörmətin təzahürüdür". Hazırda Azərbaycan bayrağının dünyada ən uca qüllədən dalğalanması, dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq tədbirlərdə, idman yarışlarında Azərbaycanın Dövlət himninin səslənməsi beynəlxalq aləmdə Azərbaycan dövlətinin tutduğu mövqeyi, qazandığı uğurlara görə Azərbaycan xalqına hörmətin təzahürü kimi qiymətləndirilməlidir. Üçüncüsü, konstitusiya cəmiyyətdə iqtisadi münasibətlərin yeni sisteminin yaradılması üçün hüquqi əsasları müəyyən etdi.

Azad bazar iqtisadiyyatına keçid zamanı iqtisadiyyatın dövlət bölməsinin azalması, bazar infrastrukturunun, müxtəlif mülkiyyət formalarının yaranması onlar arasında qarşılıqlı əlaqələrin tənzimlənməsi, sosial, iqtisadi münasibətlərin yeni qanunverici və digər prosedurlarının hazırlanması zəruriliyini meydana çıxardı. Bunlar əslində kifayət qədər çətin və ağrılı proseslər olmaqla dövlət idarəçiliyində qətiyyət tələb edirdi. Məhz böyük dövlət xadimi Heydər Əliyevin demokratik yol ilə irəliləməkdə əzmkarlığı, ardıcıl, dönməz, məqsədyönlü addımlar atması dövlət idarəçiliyində, demokratik dövlətin hüquqi əsaslarının yaradılmasında və Azərbaycan dövlətinin bu yol ilə inamla irəliləməsində uğurların əldə olunmasına səbəb oldu.

Ulu öndər 19 noyabr 1993–cü il tarixdə keçirilən ümumrespublika müşavirəsində iqtisadi sahədəki problemlərlə əlaqədar qeyd edirdi: "Respublikamız ağır iqtisadi böhran vəziyyətindədir. Ölkədə gedən müharibə iqtisadiyyatın vəziyyətinə də ciddi təsir göstərir. Bütün bunlar isə bir sıra ciddi, əsaslı tədbirlər görülməsini tələb edir. Çalışmalıyıq ki, bu tədbirlər iqtisadiyyatda böhran prosesinin qarşısını alsın, iqtisadi potensialdan səmərəli istifadə olunmasına lazımi şərait yaratsın… İqtisadi sahədə yeni qanunlar qəbul edilməli, qəbul edilmiş qanunlar bugünkü tələblərə uyğun deyildirsə, onlara yenidən baxılmalıdır…Əsas məsələlərdən biri özəlləşdirmədir. Bu, asan proses deyildir. Bu işdə risk etmək lazımdır. Bunsuz bir şeyə nail ola bilmərik…Şübhəsiz ki, özəlləşdirmə mərhələ–mərhələ getməlidir".

Ulu öndər iqtisadi sahədə dəyişiklikləri, cəmiyyətdə iqtisadi münasibətlərin yeni sisteminin yaradılmasını demokratik dövlət quruculuğu ilə əlaqələndirirdi: "Demokratiyanın təmin edilməsi üçün onun iqtisadi əsası bazar iqtisadiyyatıdır. Bazar iqtisadiyyatının özü demokratiyanın bir hissəsidir…biz bir iqtisadi sistemdən başqa iqtisadi sistemə, bazar iqtisadiyyatına, yeni iqtisadi qurumlara keçirik. Mülkiyyət formaları dəyişir. Bunların da hamısı əzab–əziyyətli, çətin proseslərdir. Bu prosesləri keçmək bizim taleyimizə düşübdür. Ancaq bilin ki, biz bu çətin yollardan keçəcəyik. İşıqlı gələcəyə, — geniş yola çıxacağıq. Azərbaycan iqtisadiyyatı yüksək səviyyəyə qalxacaqdır. Amma ona gəlib çatmaq üçün biz bu əzab–əziyyətli yolu keçməliyik".

Cəmiyyətdə iqtisadi münasibətlərin yeni sisteminin hüquqi əsaslarının yaradılması ilk növbədə konstitusiyada mülkiyyətin dövlət mülkiyyəti, xüsusi mülkiyyət, bələdiyyə mülkiyyəti növündə olmasının, Azərbaycan Respublikasında mülkiyyətin toxunulmazlığı və dövlət tərəfindən müdafiə olunmasının elan edilməsində ifadəsini tapdı. Hər kəsin mülkiyyət hüququ vardır. Mülkiyyətin heç bir növünə üstrünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz.

Konstitusiya həmçinin elan edirdi ki, Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Ulu öndərin müdrikliyi, əzmkarlığı sayəsində keçid dövrünün digər ağır problemlərinin həlli ilə yanaşı, iqtisadi sahədə irəliləyişlərə nail olundu. Sonralar o qeyd edirdi: "Biz birinci növbədə, mülkiyyətin özəlləşdirilməsini təmin etdik. Kənd təsərrüfatında torpaq islahatı keçirdik. Torpağı onun sahibinə, kəndlilərə payladıq. Özəlləşdirmə, torpaq islahatı, xarici ticarətin, ümumiyyətlə ticarətin liberallaşdırılması, xarici

investisiyaların cəlb olunması — bunlar hamısı qısa bir zamanda Azərbaycanın iqtisadiyyatının ardıcıl surətdə inkişaf etməsinə şərait yaratdı".

Hazırda Azərbaycan Respublikası möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə dünya miqyasında iqtisadi uğurlara imza atır. Ölkə iqtisadiyyatının günü–gündən inkişafı Azərbaycan Respublikasını beynəlxalq səviyyədə iqtisadi cəhətdən tanınan ölkələr sırasına çıxarmış, ölkəmiz xarici ölkələrə sərmayələr yatıran donor ölkələr arasında yerini möhkəmlətməkdədir.

Dördüncüsü, Konstitusiyada dövlət və ictimai–siyasi həyatın təşkili və fəaliyyətinin yeni prinsipləri ifadəsini tapdı.

Hər şeydən əvvəl Konstitusiyada hakimiyyətin bölgüsü prinsipinin ifadəsini tapması dövlət hakimiyyətinin həyata keçirilməsinin mütərəqqi prinsipi kimi nəzərdən keçirilməlidir. Konstitusiya müəyyən etdi ki;

Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.

Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

— qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;

—icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;

— məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir. Bu Konstitusiyanın müddəalarına əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

Hakimiyyətlərin bölünməsi prinsipinin əsas mahiyyəti ondadır ki, dövlət hakimiyyəti bir əldə, yaxud hakimiyyətin ayrı–ayrı qolunda — qanunverici, icra, məhkəmə — cəmləşməməli, əksinə həmin hakimiyyət qolları arasında tarazlaşdırılmış şəkildə bölünməlidir. Bu cür bölgü isə zəruri olduqda hakimiyyətin ayrı–ayrı qollarının bir–birini çəkindirib saxlamasına şərait yaradır. Bununla bağlı ulu öndər qeyd edirdi: "Hakimiyyətin təşkil olunması Konstitusiyada hakimiyyətin səlahiyyət bölgüləri əsasında nəzərdə tutulubdur: qanunvericilik hakimiyyəti, icra hakimiyyəti, məhkəmə hakimiyyəti. Bu prinsip XVIII əsrdə fransız filosofları Jan Jak Russo, Monteskye, Didro və digərləri tərəfindən sübut olunub, əsrlərin sınağından keçib, dünyanın demokratiya sahəsində inkişaf etmiş ölkələrində hökm sürür və biz də bu prinsipi demokratik hüquqi dövlət yaratmaq üçün və respublikamızda demokratiyanı inkişaf etdirmək üçün, vətəndaşların, insanların hüquqlarını qoruyub təmin etmək üçün əsas götürmüşük. Konstitusiyamızda bu prinsip əsasında hakimiyyət bölgüsü tam demokratik olaraq öz əksini tapıbdır və bizim də vəzifəmiz, borcumuz konstitusiyaya riayət etmək və konstitusiyanın müddəaları əsasında hakimiyyətin təşkilini bundan sonra da təmin etməkdən ibarət olacaqdır".

Konstitusiyada vətəndaşların cəmiyyətin və dövlətin siyasi həyatında, o cümlədən dövlətin idarə olunmasında iştirak hüququ öz ifadəsini tapmışdır. Azərbaycan Respublikası vətəndaşları dövlətin idarə olunmasında iştirak etmək hüququnu bilavasitə və ya nümayəndələr vasitəsilə həyata keçirə bilərlər.

Ulu öndər qeyd edirdi ki, Konstitusiyada Azərbaycanın həm dövlət quruculuğu, həm respublikamızın iqtisadiyyatının qurulmasının əsas prinsipləri, hakimiyyətin bölgüsü: qanunvericilik, icra hakimiyyəti, məhkəmə hakimiyyətinin səlahiyyətləri və onların müstəqilliyi, qarşılıqlı fəaliyyəti öz əksini tapıbdır. Onlar hamısı birlikdə ahəngdar fəaliyyət göstərməlidir.

Beşincisi, konstitusiyada insan və vətəndaş hüquq və azadlıqlarının təsbitinə və təminatına mühüm yer verilmişdir.

Müasir dövrün diqqət mərkəzində olan aktual problemlərdən biri də insan hüquq və azadlıqlarıdır. İnsan hüquqları dünyanın müxtəlif regionlarında bu və ya digər sivilizasiyanın xarakterini müəyyən edən mədəniyyət, din, ictimai dünyagörüş, əxlaqa müvafiq yaranır və inkişaf edir.

Hüquqi dövləti səciyyələndirən cəhətlərdən biri də hüququn aliliyinin tanınması, insan hüquq və azadlıqlarına hörmətdir. Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaş hüquq və azadlıqlarını ali dəyər kimi qiymətləndirərək, insan hüquq və azadlıqlarının qorunmasını qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının vəzifəsi kimi müəyyən etməklə insan hüquqlarına hörmət yolunu seçməsini bəyan etdi.

Azərbaycan Respublikasının 2001–ci ilin yanvar ayının 25–də Avropa Şurasına daxil olmaqla və "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulmaqla demokratik ənənələrə, ədalətə, yurisdiksiyası altında olan insanlar üçün fundamental hüquq və əsas azalıqların təmininə sadiqliyini bir daha ifadə etdi.

Müstəqilliyin ilk illəri Azərbaycan Respublikasının universal və regional xarakterli beynəlxalq təşkilatlara daxil olması və çoxsaylı beynəlxalq müqavilələrə qoşulması ilə səciyyələnir. Həmin müqavilələrin mühüm bir hissəsi insan hüquq və azadlıqlarının müdafiəsinə yönəlmişdir.

İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülən tədbirlərin bir hissəsini də milli qanunvericiliyin təkmilləşdirilməsi, insan hüquqlarının müdafiəsinə xidmət edən mexanizmlərin yaradılması və yenidən qurulması, məhkəmələrin fəaliyyətinin dövrün tələblərinə uyğunlaşdırılması, məhkəmə sisteminin müasirləşdirilməsi təşkil edir.

İnsan və vətəndaş hüquq və azadlıqlarının dövlət müdafiəsini təmin etmək üçün Konstitusiya həmin vəzifənin həyata keçirilməsinin müxtəlif üsul və vasitələri də daxil olmaqla təminat sistemini nəzərdə tutur. İlk növbədə onu qeyd etmək lazımdır ki, insan və vətəndaş hüquq və azadlıqlarının dövlət təminatı yalnız demokratik siyasi və hüquqi rejimin mövcud olduğu şəraitdə mümkündür. İnsan və vətəndaş hüquq və azadlıqları tarixən demokratiyanın inkişafı ilə əlaqədar yaranmış və yalnız demokratik cəmiyyətdə həyata keçirilə bilər.

Konstitusiyanın 7–ci maddəsinə əsasən Azərbaycan dövlətinin demokratik, hüquqi, dünyavi, unitar respublika elan edilməsi insan və vətəndaş hüquq və azadlıqlarının dövlət təminatının mühüm şərtidir. Demokratik hüquqi dövlətdə insan hüquqlarının tanınması, hüququn aliliyi, hakimiyyətin bölgüsü insan hüquq və azadlıqlarının dəqiq fəaliyyət göstərən dövlət təminatının vahid sisteminin yaradılması ilə müşayiət olunmalıdır. İnsan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi hər kəsin qanunla qadağan olunmayan bütün üsul və vasitələrlə müdafiə olunmaq üçün müstəqil fəaliyyət göstərməsini istisna etmir. Bu cür yanaşma insan və vətəndaş hüquq və azadlıqlarını qorumaq üçün geniş imkanlar açır.

İnsan hüquq və azadlıqlarının təmininin demokratik dövlətin əsas vəzifələrindən biri hesab edən ulu öndər qeyd edirdi: “İnsan, vətəndaş hüquqlarının, azadlıqlarının qorunmasına konstitusiyanın çox hissəsi, demək olar ki, üçdə bir hissəsi həsr olunubdur. Bu da təbiidir. Biz keçmişdən, totalitar sistemdən yeni bir sistemə keçirik. Biz demokratiyanı inkişaf etdirməliyik, xalqımızı demokratiya yolu ilə aparmalıyıq, insanların hüquqlarının qorunmasının hər yerdə, hər sahədə təmin olunması üçün əsaslar yaratmalıyıq. Bütün bu əsasları da yeni qəbul olunmuş konstitusiya verir və bütün təminatları biz konstitusiyanın maddələrindən almışıq… Bu da onu sübut edir ki, bu konstitusiya Azərbaycan vətəndaşlarının azad, sərbəst yaşaması üçün bütün şəraitləri yaradan bir konstitusiyadır”.

Altıncısı, konstitusiyada insan və vətəndaş hüquq və azadlıqlarının elan edilməsi ilə yanaşı, onların məhdudlaşdırılması, həmçinin vətəndaşların vəzifələri də ifadəsini tapdı.

Azərbaycan Respublikasında qəbul edilmiş qanunlar ölkənin Konstitusiyasında, həmçinin beynəlxalq müqavilələrdə ifadəsini tapmış insan və vətəndaş hüquq və azadlıqlarını aradan qaldırmamalı və məhdudlaşdırmamalıdır. Konstitusiyada təsbit olunmuş insan və vətəndaş hüquq və azadlıqlarının hər hansı bir qanunla məhdudlaşdırılmasına yalnız buna Konstitusiya normalarının icazə verdiyi hallarda yol verilə bilər. Əgər Konstitusiyada həmin hüquq və azadlığın məhdudlaşdırılması nəzərdə tutulmamışdırsa, heç bir qanun həmin hüququn məhdudlaşdırmasını nəzərdə tuta bilməz.

Hər bir hüquqi, demokratik dövlətdə müəyyən məhdudiyyətlərin olması zəruridir. Onlarsız cəmiyyətdə ictimai qaydanın təmin olunması, cəmiyyətin bütün üzvlərinin əsas hüquq və azadlıqlarına hörmətin təmin edilməsi mümkün deyildir. İnsan və vətəndaş hüquq və azadlıqlarının müəyyən hissəsinə mütləq və qeyri–məhdud hüquq kimi baxıla bilməz. Hər bir fərd müəyyən cəmiyyətdə yaşayır və müəyyən kollektivdə fəaliyyət göstərir üzvlərinin müəyyən qaydalara riayət etmədiyi, hər hansı vəzifə daşımadığı normal fəaliyyət göstərən cəmiyyəti təsəvvürə gətirmək mümkün deyildir. İnsan və vətəndaş hüquq və azadlıqlarının qanunla nəzərdə tutulan müəyyən məhdudiyyətləri ümumi rifah, hər şeydən əvvəl, şəxsiyyətin hüquqlarının təmini, cəmiyyət və dövlətin normal inkişafı üçün zəruridir.

İnsan hüquq və azadlıqların məhdudlaşdırılmasına yalnız müəyyən şərtlərə əməl edildikdə yol verilə bilər. Əvvəla, məhdudiyyət qanunla nəzərdə tutulmalıdır. Burada “qanun” ifadəsi Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri də əhatə edir. İkincisi, məhdudiyyət hüquq və azadlıqların əsas məzmununa hörməti qorumalıdır. Bu tələbin məqsədi — əsas hüququn ləğv edilməsinə səbəb ola bilən hədsiz məhdudiyyətə yol verilməməsini nəzərdə tutur. Üçüncüsü, hər bir məhdudiyyət proporsionallıq prinsipinə müvafiq olmalıdır. Hüquq və azadlıqların həyata keçirilməsinin məhdudlaşdırılmasına münasibətdə proporsionallıq prinsipi hər hansı məhdudiyyətin onun qarşısında qoyulan məqsəddən irəli getməməsini bildirir. Başqa sözlə, daha ciddi məhdudiyyət tədbirinə yalnız yumşaq tədbirlər səmərəli olmadıqda yol verilə bilər. Dördüncüsü, məhdudiyyət zəruri olmalıdır. Zərurət şərtləri o deməkdir ki, hər hansı məhdudiyyətə yol verilməsi üçün konkret ictimai problem kimi obyektiv səbəblər mövcud olmalıdır. Bu şərt hüquq və azadlıqların özbaşına məhdudlaşdırılması imkanını istisna etməyə yönəlmişdir. Beşincisi, məhdudiyyət yalnız qanuni məqsədlə qoyula bilər. Məhdudiyyətin qoyulması başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi və ya ümumi mənafeyə xidmət etməlidir.

Vətəndaş və dövlət Azərbaycan Respublikasında qarşılıqlı hüquq, vəzifə və məsuliyyətlə biri–biri ilə əlaqədədirlər. İnsan və vətəndaş hüquq və azadlıqlarına təminat verməklə onların müdaifəsini təmin etməklə dövlət ölkənin müdafiəsi və dövlətin təhlükəsizliyinin təmini məqsədilə qanunla hüquq və azadlıqları məhdudlaşdıra və konstitusiya quruluşunun əsas dəyərlərinə zərər vuran qəsdən törədilmiş əməllərə görə cinayət məsuliyyəti də nəzərdə tuta bilər. Eyni zamanda ayrı–ayrı fərdlərin özlərinin konstitusiya hüquq və azadlaqlarını hüquqauyğun surətdə həyata keçirməsi dövtən suverenliyinə qəsd edən əməl kimi qiymətləndirilə bilməz və onun üçün əlverişsiz hüquqi nəticələrə səbəb olmamalıdır.

İnsana öz hüquqlarını müstəqil müdafiə etməkdə geniş seçim imkanı verilir. Lakin onun hərəkətləri cəmiyyətdə müəyyən edilmiş qanunlara zidd olmamalıdır: ictimai qaydanı pozmaq olmaz, hüquq–mühafizə orqanları və digər müəssisələrin işinə dağıdıcı təsir göstərmək, insanların həyat və sağlamlığı üçün qorxu törədən şərait yaratmaq yolverilməzdir.

Ulu öndər qeyd edirdi: “Konstitusiya insan, vətəndaş hüquqlarının, azadlıqlarının təminatı ilə əlaqədar vətəndaşların qarşısında duran böyük vəzifələri də ətraflı əks etdiribdir. Hər bir vətəndaşın hüququ var, o hüquqlar qorunmalıdır… Ancaq hər bir vətəndaşın vətəndaşlıq vəzifəsi var, borcu var. Vətən qarşısında borcu var, vəzifəsi var. Bunlar da konstitusiyada öz əksini tapıbdır”.

Yeddincisi, konstitusiyada məhkəmə hakimiyyətinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri ifadəsini tapdı.

Azərbaycan Respublikası Konstitusiyasının 7–ci maddəsinin 3–cü hissəsinə müvafiq olaraq məhkəmə hakimiyyəti hakimiyyətin qollarından biridir. Ona görə də məhkəmə hakimiyyəti dövlət hakimiyyətinin bir qolu kimi gerçəkliyə həqiqi təsir göstərmək imkanı olmadan mövcud ola bilməz.

Ulu öndər demokratik dövlət quruculuğu prosesini ölkədə məhkəmə hüquq islahatlarının həyata keçirilməsi ilə əlaqələndirirdi: “Müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasının həyata keçirilməsi prosesi hər birimizin əsas vəzifələrindən biridir. Bu baxımdan məhkəmə, hüquq–mühafizə orqanlarının islahatı ilə əlaqədar qanunların hazırlanması, qəbul olunması çox mühüm əhəmiyyət kəsb edir”. Ulu öndərin ideyaları əsasında məhkəmə–hüquq sistemində ardıcıl olaraq həyata keçirilən islahatlar məhkəmə hakimiyyətinin müstəqilliyinin və insan hüquqlarının təmininə, ədalət mühakiməsinin müasir standartlara uyğunlaşdırılmasına, məhkəmə qərarlarının müasir dövrün tələblərinə cavab verən səviyyədə olmasına, həmin qərarların vaxtında icrasına, vətəndaşların məhkəmələrə inamının artmasına səbəb olmuşdur.

Azərbaycan Respublikasının Konstitusiyasında məhkəmə hakimiyyətinin və onun daşıyıcıları kimi hakimlərin statusunun əhəmiyyətli dərəcədə yüksəldilməsi üçün müvafiq qanunvericilik bazası formalaşdırılmış, məhkəmə hakimiyyətinin səmərəli işinə zəmin yaratmaq məqsədilə təminatlar nəzərdə tutulmuşdur.

Məlumdur ki, müstəqil məhkəmə hakimiyyəti olmadan ədalətli cəmiyyət yaratmaq mümkün deyildir. Məhkəmə hakimiyyətinin vəziyyəti cəmiyyəti xarakterizə edən cəhətlərdən biridir. Məhkəmə hakimiyyətinin vəziyyətini müəyyən etməyin əsas meyarı fiziki və hüquqi şəxslərin hüquq və qanuni mənafelərinin müdafiəsi üçün məhkəmə müdafiəsinin əlçatan olması, istifadə edilən prosedurların ədalətliliyi və hakimlərin qərəzsizliyidir.

Azərbaycan Respublikası Konstitusiyasının 125–ci maddəsinə müvafiq olaraq Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər. Bu isə ona dəlalət edir ki, ədalət mühakiməsinin həyata keçirilməsi dövlət hakimiyyətinin müstəqil orqanı kimi məhkəmələrin əsas konstitusiya funksiyasıdır.

Demokratik hüquqi dövlət quruculuğu ictimai həyatın digər sahələrində olduğu kimi, məhkəmə–hüquq sistemində islahatların həyata keçirilməsini tələb edirdi.

Məhkəmələrin müstəqilliyinin, qərəzsizliyinin, ədalət mühakiməsinə hər kəsin müraciət etmək imkanının, mübahisələrə qanunamüvafiq qaydada baxılmasının və vaxtında həllinin təmin edilməsi məhkəmə islahatlarının keçirilməsinin əsas məqsədini təşkil edir. Ümummilli liderin məhkəmə–hüquq islahatları sahəsində həyata keçirdiyi dövlət siyasəti Azərbaycanda müstəqil məhkəmə hakimiyyəti formalaşdırılmasının və demokratik prinsiplərə əsaslanan məhkəmələrin yaradılmasının əsasını qoydu.

Ulu öndər qanunvericilik sahəsində aparılan işin vacibliyini məhz ölkədə demokratik hüquqi dövlət quruculuğu ilə əsaslandırırdı: “Biz hüquqi dövlət qururuq. Hüquqi dövlətin də əsasını təşkil edən qanunlardır… Ölkəmizdə qəbul edilən qanunlar Avropa Şurası ekspertlərinin bilavasitə iştirakı ilə hazırlanır. Hüquq islahatları nəticəsində hər bir insan şəxsiyyət azadlığı və toxunulmazlığına, barəsində qaldırılmış işin müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətlə və açıq şəkildə araşdırılmasına, hüquq müdafiəsinə təminat almışdır… Demokratiya hərc–mərclik, özbaşınalıq deyil, əksinə, qayda–qanunun daha etibarlı qorunması, ona hamının əməl etməsi deməkdir”.

"Məhkəmələr və hakimlər haqqında", "Konstitusiya Məhkəməsi haqqında", "Vəkillik və vəkillik fəaliyyəti haqqında", "Məhkəmə qərarlarının icrası haqqında", "Məhkəmə və hüquq — mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunları məhkəmə islahatları sahəsində islahatların hüquqi bazasını yaratmaqla hazırda müstəqil məhkəmə sisteminin uğurlu fəaliyyətinə xidmət edir.

Məhkəmə–hüquq sistemində aparılmış islahatlar ilkin olaraq özünü birinci, apelyasiya və kassasiya instansiyaları kimi fəaliyyət göstərən üçpilləli məhkəmə sisteminin yaradılmasında təzahür etdirdi. Bu vətəndaşlara birinci instansiya məhkəməsi qərarlarının apelyasiya qaydasında yenidən mübahisələndirmək, həmçinin kassasiya instansiyası məhkəməsində apelyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüququ normalarının düzgün tətbiq edilib–edilməməsini yoxlamaq imkanı yaratdı. Beləliklə, ölkəmizdə məhkəmə sistemi beynəlxalq səviyyədə sınaqdan çıxmış üçpilləli məhkəmə sistemlərinə uyğunlaşdırıldı. Son nəticədə məhkəmədə işlərin düzgün, hərtərəfli və obyektiv həllinə nail olunması, məhkəmə qərarlarının qətiliyi, müstəqilliyi və onlara hörmət edilməsi, məhkəmə sisteminə etimadın artması üçün zəmin yarandı.

Məhkəmələr tərəfindən hər kəsin ədalətli məhkəmə baxışına olan hüququnun təmin edilməsi məhkəmə–hüquq islahatlarının bir istiqamətini təşkil edir. Məhkəmə hakimiyyətinin səmərəliliyi müəyyən edilmiş prosedurun ədalətliliyi şəraitində mümkündür. Ədalətli məhkəmə baxışı hüququ Azərbaycan Respublikasının 25 yanvar 2001–ci il tarixdə qoşulduğu "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının 6–cı maddəsində ifadəsini tapmışdır.

Ədalətli məhkəmə baxışı ədalət mühakiməsinin həyata keçirilməsi zamanı həmçinin qərəzsizlik və obyektivliklə də bağlıdır.

Məhkəmələrdə işlərə obyektiv baxılması məhkəmənin işə münasibətdə qabaqcadan müəyyənləşdirilmiş mövqeyinin olmamasında, işin hallarını gerçəkliyə tam uyğun surətdə müəyyən edilməsi və qiymətləndirilməsində öz ifadəsini tapır. Bu isə məhkəmədən iş barədə qabaqcadan müəyyən fikirdə olmamağı, məcmudan qoparılmış ayrı–ayrı fakt və sübutlara deyil, onların məcmusuna istinad etməyi tələb edir.

Məhkəmələrin işlərə qərəzsiz baxması onda öz ifadəsini tapır ki, hakimin baxdığı iş üzrə ədalət mühakiməsini həyata keçirməkdən başqa heç bir marağı olmur.

Ədalət mühakiməsi yalnız o vaxt həqiqi ədalət mühakiməsi hesab oluna bilər ki, o özünün mahiyyəti etibarı ilə ədalətlilik tələblərinə cavab versin və hüquqların səmərəli bərpasını təmin etsin. Ədalətli məhkəmə baxışı beynəlxalq müqavilələrdə və ya konstitusiya prinsipi ilə nə qədər çox müdafiə və mühafizə olunsa da, son nəticədə yalnız hakimlik işinin keyfiyyəti ədalətliliyin məhkəmələrin fəaliyyətində real kök salmasına rəvac verəcək.

Ulu öndərin ideyaları əsasında məhkəmə–hüquq sistemində ardıcıl olaraq həyata keçirilən islahatlar məhkəmə hakimiyyətinin müstəqilliyinin və insan hüquqlarının təmininə, ədalət mühakiməsinin müasir standartlara uyğunlaşdırılmasına, məhkəmə qəraralarının müasir dövrün tələblərinə cavab verən səviyyədə olmasına, həmin qərarların vaxtında icrasına, vətəndaşların məhkəmələrə inamının artmasına səbəb olmuşdur.

Məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin olunması, məhkəmələrin fəaliyyəti üçün yüksək standartlara cavab verən şəraitin yaradılması, hakimlərin onlara qarşı irəli sürülən tələblərə cavab verməsi məqsədilə məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə–Hüquq Şurası səmərəli fəaliyyət göstərir. Məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin olunmasında hakimlərin şəffaf və obyektiv seçiminin müstəsna rolu vardır. Avropa Şurası ilə birgə aparılmış iş nəticəsində hakimliyə namizədlərin ən mütərəqqi və şəffaf üsullarla seçilməsi qaydası müəyyən edilmişdir.

Ulu öndər Heydər Əliyev ədalət mühakiməsinin həyata keçirilməsi zamanı məhkəmələrin müstəqilliyinin təmin olunmasına xüsusi önəm verir, məhkəmələrin fəaliyyətinə müdaxilə edilməsini yolverilməz hesab edir, məhkəmənin qərarının yalnız məhkəmə tərəfindən dəyişdirilə biləcəyini qeyd edirdi.

Məhkəməyə müraciətin əlçatan olması, əhalinin müraciətinin asanlaşdırılması məqsədilə regionlarda apellyasiya və ağır cinayətlər məhkəmələrinin, həmçinin ölkə ərazisində yeni inzibati məhkəmələrin yaradılması məhkəmə–hüquq islahatlarının davamlılığına və bu sahədə ulu öndərin ideyalarının həyata keçirilməsinin təminınə dəlalət edir.

Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən layihə çərçivəsində məhkəmələrin Vahid İnformasiya İnfrastrukturu strategiyası hazırlanmışdır. Strategiya ölkədə fəaliyyət göstərən bütün müxtəlif instansiyalı məhkəmələri, məhkəmə özünüidarə orqanları və Ədliyyə Nazirliyi üçün əlverişli olan qarşılıqlı əlaqəli kommunikasiya sistemlərinin, avtomatlaşdırma vasitələri komplekslərinin, informasiya resurslarının yaradılmasını əhatə edir. Bu texnoloji sistem qanunvericiliyə dair məlumat bankına, məhkəmə təcrübəsinin, xüsusilə hüququn yeni və inkişaf edən sahələrində ümumiləşdirmə materiallarına çevik çıxışı təmin etməklə, analitik tədqiqatların imkanlarını artırır, məhkəmə kargüzarlığının unifikasiyasına, məhkəmə sənədlərinin

icrasının yüksək keyfiyyətini təmin etməyə imkan yaradır. Bundan əlavə, qanunvericilik aktlarına çıxışın əldə olunmasının yalnız hakimlər, prokurorlar, vəkillər və digər hüquqşünaslar üçün deyil, həmçinin vətəndaşlar üçün zəruriliyi nəzərə alınaraq, bütün əhalinin bazaya pulsuz çıxışına imkan yaradılmışdır. Azərbaycan Respublikası Ali Məhkəməsində də bu sahədə əhəmiyyətli işlər görülmüşdür. Tərəflərin, ictimaiyyətin, kütləvi informasiya vasitələrinin məhkəmə baxışının vaxtı və yeri barədə məlumatlandırılması üçün müasir texniki vasitələrdən istifadə olunur, Ali Məhkəmənin xüsusi internet səhifəsində işlərə baxılması vaxtı barədə məlumatlar verilir. Ali Məhkəmənin qərarları bütünlüklə internet səhifəsində dərc olunur. Ali Məhkəmədə elektron sənəd dövriyyəsi tətbiq olunmuş, iclasların video yazısı aparılır, iclas zallarında tərcümə xidmətini təmin edən sistem fəaliyyət göstərir. Ali Məhkəmədə yaradılmış kommunikasiya sistemi müxtəlif idarələrlə video–konfransların keçirilməsinə imkan yaradır.

Məhkəməyə müraciətin əlçatan olması, əhalinin müraciətinin asanlaşdırılması məqsədilə Ali Məhkəmədə internet portal fəaliyyət göstərir. İnternet portalda məhkəmədə baxılan işlər, çıxarılan qərarlar, qəbul günləri və sair barədə məlumatlar öz əksini tapır.

Səkkizincisi, konstitusiyada onun birbaşa hüquqi qüvvəsi və beynəlxalq hüquq normalarının qanunvericilik sistemində yeri müəyyən edildi.

Azərbaycan Respublikasının Konstitusiyasının 147–ci maddəsinə əsasən Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malikdir.

Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

Dünya birliyinin vahidliyi, dövlətlərin qarşılıqlı asılılığının möhkəmlənməsi sosial–iqtisadi və siyasi–hüquqi sistemlərin biri–birinə təsir etmək imkanında olmasını tələb edir. Dövlətlərarası münasibətlərin hüquqi tənzimləyicisi kimi beynəlxalq hüququn hazırkı mövqeyi dövlətləri beynəlxalq hüquq normalarınının hüquq sistemlərinə inplementasiyasının təmini üçün yeni qayda və mexanizmlər yaratmaq, beynəlxalq öhdəliklərin yerinə yetirilməsinin üzərində nəzarəti həyata keçirmək zərurəti qarşısında qoyur.

Beynəlxalq hüquq normalarının hüquq tətbiqedici orqanları tərəfindən tətbiq edilməsinin zəruriliyi "Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "İnsan hüquqları və azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsi presedentlərinin tətbiqi haqqında" 30 mart 2006–cı il tarixli qərarında göstərilir ki, "beynəlxalq hüququn səmərəliliyi, beynəlxalq müqavilələrin müddəalarının həyata keçirilməsi və beynəlxalq öhdəliklərə əməl olunması dövlət daxilində həyata keçirilən təşkilati və hüquqi tədbirlərdən asılıdır.

İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində bağlanmış müqavilələrdə dövlətlərin üzərlərinə götürdüyü öhdəliklər iştirakçı dövlətlərə deyil, onların yurisdiksiyası altında olan insanlara ünvanlanmaqla ayrı–ayrı fərdlərin hüquqlarının müdafiəsinə yönəlmiş olur. Respublikamızda müqavilələr icra olunmalıdır prinsipinə müvafiq olaraq beynəlxalq öhdəliklərin yerinə yetirilməsi prosesi davam etməkdədir. İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində beynəlxalq öhdəliklərin yerinə yetirilməsi məqsədilə görülən tədbirlərin bir hissəsini də məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsi, məhkəmə sisteminin müasirləşdirilməsidir. Ölkəmizdə həyata keçirilən məhkəmə–hüquq islahatları uğurla davam etdirilməkdə, məhkəmələr tərəfindən beynəlxalq hüquq normaları tətbiq olunmaqdadır".

Ulu öndər beynəlxalq müqavilələrə qoşulmağın, həmçinin insan hüquqları sahəsində beynəlxalq standartlara riayət edilməsinin zəruriliyinin demokratik yol ilə irəliyə gedən dövlət üçün əhəmiyyətli hesab edir və Avropa dəyərləri ilə milli dəyərləri birləşdirən cəhətləri axtarıb tapmağı və onlara söykənməyi vacib hesab edirdi: "Azərbaycanın Konstitusiyası beynəlxalq hüququn üstünlüyünə təminat verir. Biz indiyədək Avropa Şurasının 15 konvensiyasına qoşulmuşuq… Bu, ilk növbədə insan hüquqlarına dair Avropa Konvensiyasına və onun protokollarına aiddir.Biz fərqləri ziddiyyətə çevirməməli, əksinə, bu fərqlər içərisində bizi birləşdirən cəhətləri axtarıb tapmalı və onlara söykənməliyik. Biz müxtəlif xalqlar olsaq da, bir dildə — vahid Avropa dilində, azadlıq, demokratiya və qanun dilində danışmalıyıq".

Təbii ki, bir məqalə çərçivəsində ulu öndərin Azərbaycan Respublikası Konstitusiyasının hazırlanması və qəbul edilməsi sahəsində xidmətlərini tam əhatə etmək, onun ideyalarının konstitusiyada ifadəsini tam işıqlandırmaq mümkün deyildir. Lakin danılmaz həqiqətdir ki, ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının Konstitusiyasında təzahürünü tapan ideya, fəlsəfi və hüquqi baxışları uzun illər ərzində Azərbaycan xalqına, Azərbaycan vətəndaşlarına xidmət edəcək, xalqın azad, firavan yaşamasına, Azərbaycan dövlətinin dünya birliyində layiqli yerini tutmasına zəmin yaradacaqdır. Xalqın işıqlı gələcəyi isə bu ideya və baxışların həyata keçirilməsindən asılıdır. Bunun üçün yenə ulu öndərin tövsiyələrinə istinad etmək, onlara

söykənmək, orada ifadəsini tapanlara riayət etmək lazımdır: "Hər bir şeyi itirmək olar… insan gərək mənəviyyatını itirməsin, bütün çətinliklərin qarşısını alsın, onların qarşısında əyilməsin, sınmasın. Öz iradəsi ilə yaşasın, böyüsün, cəmiyyətə fayda versin.

Həyatın mənası təkcə insanın bu həyatda yaşaması deyildir… Nə qədər çox, firavan, zəngin yaşasa da, …insan həyatın mənasını bunda görürsə, təbiidir ki, o, zəngin deyil, mənəviyyatca kasıbdır. Həyatın mənası ondan ibarətdir ki, …həyat fəaliyyətinə başlayan insan cəmiyyətə, millətə, ölkəsinə, vətəninə layiqli xidmət etsin, fayda versin".

Ulu öndərin keçdiyi ömür yolu söylədiklərinin real həyatdakı təcəssümü idi. Azərbaycanın hər bir vətəndaşının, o cümlədən məhkəmə hakimiyyətini həyata keçirən şəxslərin vəzifəsi isə ümummilli lider Heydər Əliyevin ideya və baxışlarının işıq saldığı yol ilə getmək, cəmiyyətə, xalqa, vətəninə xidmət etmək, fayda verməkdən ibarətdir.

**"Respublika".-**2013.-10 may.-N 99.-S.8,10.

# TARİX YARADAN ŞƏXSİYYƏT

**Mübariz QURBANLI,**
Milli Məclisin komissiya sədri, YAP İcra katibinin müavini

*Böyük şəxsiyyətlər yaşayıb yaratdıqları, fəaliyyət göstərdikləri zamanlarda siyasi, iqtisadi və digər prosesləri öz xalqlarının rifahı naminə irəliyə aparmaqla adlarını əbədi olaraq tarixə yazmışlar. Hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır. Azərbaycan xalqı da hər zaman tarixi şəxsiyyətləri ilə fəxr etmişdir. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Ulu öndər Heydər Əliyev tarixi prosesə təsir göstərməyə qadir şəxsiyyət kimi Azərbaycan xalqı və dövlətçiliyi üçün çox böyük və əvəzedilməz işlər görmüşdür. Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir. Ümummilli liderin Azərbaycan tarixinə bəxş etdiyi əzəmətli bayram günlərindən biri də məhz 15 iyun Qurtuluş günüdür.*

Bu gün haqqında qürurla danışdığımız tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü ilin 15 iyun günü xalqımız üçün yeni bir başlanğıc, ictimai tərəqqidə keyfiyyətcə yeni bir mərhələdir. 15 iyun əsl qurtuluş tarixi olmaqla yanaşı, Azərbaycanda xaosdan, böhrandan, anarxiyadan inkişafa, sabitliyə doğru gedən yolun başlanğıcıdır. Bu tarixi yaradan isə yenə də Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa olan insan – Heydər Əliyev idi.

Ulu öndər Heydər Əliyevin həyat amalı, zaman və məkan anlayışına sığmayan siyasi fəaliyyətinin əsas məqsədi azad və müstəqil bir dövlət qurmaq idi. Tarixə müasir Azərbaycanın memarı olaraq düşən ümummilli lider Heydər Əliyev hər zaman Azərbaycanı özünə güvənən qüdrətli bir ölkəyə çevirmək istəyirdi. Bu yolda qəti addımlar atır, əməli işlər görür, özünün iqtisadi inkişaf yolunda olan Azərbaycanın etibarlı, sağlam gələcəyini qururdu. Xalq onu sevir, parlaq zəkasını qiymətləndirir və öz liderinə, onun yeritdiyi siyasi kursa inanaraq ardınca gedirdi. Əslində, Heydər Əliyev ömrü Azərbaycan xalqının XX əsr tarixinin 35 illik böyük bir dövrü ilə sıx bağlıdır və onları bir-birindən ayırmaq və izah etməyə çalışmaq mümkün deyil.

Azərbaycanın dövlət müstəqilliyinin bərpası ərəfəsində gedən prosesdə Heydər Əliyev tarixi şəxsiyyət, lider olaraq Azərbaycan xalqının taleyinə təsir göstərən əhəmiyyətli addımlar atdı. 1990-cı ilin yayında Moskvadan Vətənə qayıdan ulu öndərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi illər Azərbaycanın istiqlalı yolunda xüsusi mərhələ olmuşdur. Onun rəhbərliyi altında muxtar respublika Azərbaycanın dövlət müstəqilliyinə doğru irəliləməsində bayraqdar rolu oynayırdı. Əsas amillərdən biri o idi ki, onun muxtar respublikaya rəhbərlik etməsi ölkəmizin bu qədim diyarının erməni təcavüzündən xilas olmasında başlıca rol oynamışdı. Məhz Heydər Əliyevin müdrikliyinin, siyasi təcrübəsinin və iradəsinin nəticəsi idi ki, Naxçıvan MR üzləşdiyi bütün çətinlikləri dəf etmiş, muxtar respublika daxilində sabitliyi, əmin-amanlığı təmin etmişdir. Bütün bu faktlar bir daha təsdiqləyir ki, 1993-cü ilin yayında Azərbaycan "olum, ya ölüm" dilemması qarşısında qaldığı bir vaxtda, xalqın təkidlə Heydər Əliyevin hakimiyyətə qayıtmasını tələb etməsi heç də təsadüfi deyil. Həmin il iyunun 15-də müdrik siyasətçinin, təcrübəli dövlət xadiminin hakimiyyətə tarixi qayıdışı ilə Azərbaycan tarixinin Heydər Əliyev dövrü, özünün yeni, daha əzəmətli mərhələsinə qədəm qoydu. Bu qayıdışla ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun şəkildə müstəqil dövlət quruculuğu prosesi başlandı. Beləliklə, ümummilli lider Heydər Əliyevin birinci hakimiyyəti ölkənin formalaşdırılmasına hesablanmışdırsa, onun ikinci hakimiyyəti əsl QURTULUŞ oldu.

Xalqın çağırışı ilə Heydər Əliyev 1993-cü ildə, ölkəmizdə siyasi böhran yaşandığı, vətəndaş mübarihəsi təhlükəsi yarandığı, Ermənistanın təcavüzünün gücləndiyi bir vaxtda siyasi hakimiyyətə qayıtdı. Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə gəlişindən, yəni 1993-cü ildən sonra ölkəmizdə gedən proseslər geniş bir təhlil, təhqiqat tələb edən məsələdir. Aparılan araşdırmalar və təhlillər Heydər Əliyevin nəhəng siyasətinin ayrı-ayrı elementlərini bir daha göz önünə gətirməyi zəruri edir.

1993-cü ilin iyun hadisələri zamanı siyasi hakimiyyətə qayıdan Heydər Əliyev, ilk növbədə, vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Azərbaycanda ictimai-siyasi sabitliyin yaradılması üçün ciddi və təxirəsalınmaz addımlar atıldı. Hərb cəbhəsində atəşkəsə nail olundu. Bu, Azərbaycan üçün olduqca vacib idi. Çünki hərbi əməliyyatların davam etməsi Azərbaycan iqtisadiyyatının onsuz da ağır olan vəziyyətini daha da ağırlaşdıra bilərdi. Azərbaycan həmin müharibəni yalnız Ermənistanla aparmırdı. Hamıya bəlli idi ki, Ermənistana silah pulsuz verilirdi. Ermənistana müxtəlif vasitələrlə ayrı-ayrı ölkələrdən də yardımlar edilirdi.

Ermənistan tərəfi Azərbaycan Ordusunun hücumları qarşısında tab gətirməyərək atəşkəsə razılıq vermək məcburiyyətində qaldı.

Atəşkəsin əldə edilməsi ilə yaranmış fasilədən ümummilli lider Heydər Əliyev ölkədə dövlət quruculuğu işinin aparılması və ictimai-siyasi sabitliyin bərqərar olması, iqtisadi və maliyyə sabitliyinin yaradılması üçün çox ciddi siyasətin həyata keçirilməsinə başladı. İctimai-siyasi sabitliyin yaradılması üçün Heydər Əliyevin həyata keçirdiyi siyasətin ana xəttini qanunçuluq və möhkəm dövlət intizamının yaradılması təşkil edirdi. Hamıya bəllidir ki, o dövrdə ayrı-ayrı qrupların nəzarətində qanunsuz fəaliyyət göstərən silahlı dəstələr var idi. Bu silahlı dəstələrin, hökumətə, hakimiyyətə tabe olmayan qanunsuz hərbi birləşmələrin mövcudluğu dövlətçilik və müstəqillik, o cümlədən vətəndaşların təhlükəsizliyi üçün qorxu törədirdi. Heydər Əliyevin atdığı ilk əhəmiyyətli addımlardan biri belə silahlı dəstələrin ləğv edilməsi, onlarda olan silahların yığılması oldu.

Ulu öndər Heydər Əliyevin başladığı dövlət quruculuğu siyasətinin tərkibində əsas yerlərdən birini Milli Ordunun yaradılması tuturdu. 1993-cü ilə qədər hakimiyyətdə olan iqtidarların heç biri ordu yarada bilməmişdi. Heydər Əliyevin qarşıya qoyduğu ən vacib və təxirəsalınmaz vəzifələrdən biri vahid komandanlığa əsaslanan ordunun yaradılması idi. Az zaman ərzində Müdafiə Nazirliyinin tabeçiliyində və dövlətin nəzarətində olan ordu birləşmələri yaradıldı və düşmənin hücumlarının qarşısı alındı.

Heydər Əliyev ictimai-siyasi sabitliyi qorumaq üçün qanunçuluğun yüksək səviyyədə təsbit olunması istiqamətində mühüm addımlar atdı. Ölkədə xaos və özbaşınalığın qarşısı alındı. Xalqın Heydər Əliyevə inamı, etimadı o dərəcədə yüksək idi ki, onun hər bir çağırışı Azərbaycan xalqının bütün təbəqələrində böyük əks-səda doğururdu. 1994-cü ilin oktyabrında xarici qüvvələrin köməyi ilə bəzi dairələr Azərbaycanda dövlət çevrilişinə cəhd göstərdilər. Keçmiş baş nazir S.Hüseynovun rəhbərliyi ilə dövlət çevrilişinə cəhd edən dairələrin məqsədi ölkəmizin həyata keçirdiyi müstəqil siyasəti əngəlləmək, Azərbaycanı yenidən xarici qüvvələrin, imperiya dairələrinin təsiri altına keçirmək idi. Azərbaycan xalqının Heydər Əliyevə olan inamı hesabına dövlət çevrilişinə cəhdin qarşısı qətiyyətlə alındı.

Dövlət çevrilişinə cəhd təsadüfən baş verməmişdi. O dövrdə Azərbaycan öz təbii sərvətlərini dünyaya çıxarmaq və neft-qaz ixracının köməyilə iqtisadi problemlərini həll etmək üçün addımlar atırdı. Xəzərdə Azərbaycana məxsus neft yataqlarının birgə işlənməsi ilə əlaqədar xarici neft şirkətlərilə danışıqlar aparılırdı. Bu danışıqları pozmaq istəyən qüvvələr 1994-cü ilin oktyabrında dövlət çevrilişinə cəhd göstərdilər. Qeyd etdiyimiz kimi, Heydər Əliyevin qətiyyəti sayəsində bu cəhdin qarşısı alındı və ictimai-siyasi sabitlik qorundu.

1995-ci ilin martında yenidən dövlət çevrilişinə cəhd olundu. Xarici dairələr Azərbaycanda sabitliyi pozmaq və ölkənin həyata keçirdiyi siyasəti əngəlləmək üçün dövlət çevrilişinə cəhd etdilər. Bu cəhdin də qarşısı qətiyyətlə alındı. Beləliklə, Heydər Əliyevin fədakar zəhməti sayəsində Azərbaycanda silahlı yolla hakimiyyətə gəlmək ənənəsinə birdəfəlik son qoyuldu. Ulu öndərin həyata keçirdiyi siyasət praktik olaraq silahlı çevrilişin Azərbaycan siyasətindən çıxarılmasına gətirib çıxardı. Bu, müasir Azərbaycanın tarixində Heydər Əliyevin adı ilə bağlı olan çox böyük bir nailiyyətdir. İctimai-siyasi sabitliyin təmin edilməsi iqtisadi islahatların həyata keçirilməsinə yol açdı. Dövlət idarəçiliyi ilə bağlı qanunlar hazırlanaraq təsdiq olundu. Ən başlıcası isə müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul edildi. Bütün bunlar ulu öndərin dövlət quruculuğu sahəsində gördüyü böyük işlərin əsas istiqamətlərindən biridir.

Ulu öndər Heydər Əliyevin ən böyük xidmətlərindən biri də Azərbaycanın öz təbii sərvətlərinə sahib çıxması, dünyanın əsas neft-qaz ixracatçılarından birinə çevrilməsidir. Heydər Əliyevin bu istiqamətdə həyata keçirdiyi nəhəng siyasi layihələrdən biri neft strategiyasıdır. Neft strategiyası bu gün də Azərbaycan üçün həm siyasi, həm də iqtisadi dividendlər gətirməkdədir. Ulu öndərin uzaqgörənliyi və qətiyyəti sayəsində 1994-cü il sentyabrın 20-də Bakıda müxtəlif ölkələrin neft şirkətləri ilə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın yeni neft strategiyasının əsasını qoydu. Bu neft strategiyası dünyanın ən qabaqcıl neft şirkətlərini Azərbaycana investisiya yatırmağa cəlb etdi. Bu investisiyalar iqtisadi sabitliyin bərqərar olması üçün böyük rol oynadı. Azərbaycanın beynəlxalq nüfuzu artdı, bölgədə rolu genişləndi. O cümlədən iqtisadi islahatlar aparılması üçün böyük baza yaradıldı, sosial islahatlar üçün iqtisadi potensial əldə edildi.

Heydər Əliyevin həyata keçirdiyi nəhəng geopolitik layihələr sırasında Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi bu gün həm Azərbaycan, həm də region üçün böyük rol oynayır. Bütün iqtisadi təhlilçilərin və tədqiqatçıların fikri ondan ibarətdir ki, belə nəhəng layihənin həssas bir bölgədə, geopolitik baxımdan dartışmalar mərkəzi olan Cənubi Qafqazda həyata keçirilməsi yalnız böyük şəxsiyyətin – Heydər Əliyevin uzaqgörənliyi ilə reallaşa bilərdi.

Enerji təhlükəsizliyi dünya dövlətlərini düşündürən ən vacib məsələlərdən biridir. Ona görə də Azərbaycanın, o cümlədən Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılmasına əngəl olmaq istəyən qüvvələr var idi. Onların maneələrinə baxmayaraq, Heydər Əliyev BTC neft kəmərinin, sonra isə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin reallaşması üçün böyük siyasət həyata keçirdi. Bu layihələrin reallaşması

Heydər Əliyevin uğuru, onun böyük şəxsiyyət olaraq tarixi prosesə göstərdiyi təsirlərin nəticəsi idi. Məhz bu səbəbdən Azərbaycanın regionda yeri daha da möhkəmləndi, beynəlxalq təşkilatlarda nüfuzu artdı. Biz bunu Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, İslam Konfransı Təşkilatı və digər beynəlxalq təşkilatlarda görə bilərik. Azərbaycanın artan nüfuzunun nəticəsi idi ki, respublikamız bölgənin lider dövlətinə çevrildi. Eyni zamanda, artan nüfuzun nəticəsi idi ki, Ermənistanın Azərbaycana təcavüzü BMT səviyyəsində, ATƏT çərçivəsində ölkəmizin xeyrinə qərar və qətnamələrin qəbul edilməsi ilə müşayiət olundu.

Ulu öndərin əsasını qoyduğu yeni neft strategiyası bu gün də uğurla davam etdirilir. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən yeni neft strategiyası xalqımızın öz sərvətinə sahib olmasında mühüm rol oynayır. Bu gün BTC və BTƏ Qərblə Şərq arasında körpü rolunu oynayır. Bu layihələr Xəzər regionu ilə Avropa arasında qırılmaz tellərdir, Azərbaycanla Türkiyəni polad kəmərlərlə bir-birinə bağlayıb. Bu bağlılığı hansısa bədxah qüvvələr, çirkin niyyətli dairələr qıra bilməzlər. Bu gün Azərbaycanın razılığı və iştirakı olmadan Qafqazda hansısa bir layihəni həyata keçirmək mümkün deyil. Bu, ulu öndər Heydər Əliyevin başladığı böyük siyasətin davamı və məntiqi nəticəsidir.

Heydər Əliyevin həyata keçirdiyi siyasətin başqa bir istiqaməti iqtisadi tənəzzülün qarşısının alınmasıdır. 1995-1996-cı illərdən başlayaraq iqtisadi böhran aradan qaldırıldı, Azərbaycan inkişaf yoluna qədəm qoydu. İqtisadi islahatların bəhrəsi xalqın rifahına da müsbət təsir göstərməyə başladı. Qısa zaman kəsiyində Azərbaycan iqtisadi baxımdan Qafqazın ən qabaqcıl ölkəsi oldu.

Azərbaycan dövlətçiliyində Heydər Əliyevin adı ilə bağlı olan əsas məqamlardan biri təməl prinsipləridir. Müstəqil Azərbaycan dövlətinin təməl prinsiplərinin müəllifi Heydər Əliyevdir. Bu təməl prinsipləri yalnız bu gün üçün deyil, eyni zamanda, gələcəyə yönəlib. Hər bir xalq öz dövlətçiliyinin idarə olunmasında müəyyən ideoloji prinsiplərə söykənir. İdeologiyasız dövlətçilik mümkün deyil. Xalq ideologiyaya söykənmədən irəli gedə bilməz.

Ümummilli lider Heydər Əliyev şəxsiyyəti haqqında fikir söyləmək, onun Azərbaycan dövləti və xalqı üçün həyata keçirdiyi siyasi fəaliyyəti layiqincə qiymətləndirmək böyük məsuliyyət tələb edirdi. Ölkə Prezidenti cənab İlham Əliyev ümummilli lider Heydər Əliyevin 90 illik yubiley tədbirində deyir: “Şəxsiyyətlərin tarixdəki rolu haqqında müxtəlif dövrlərdə kitablar, elmi və bədii əsərlər yaradılmışdır. Bu günə qədər bu məsələ bəzi hallarda mübahisə mövzusudur. Ancaq Heydər Əliyevin timsalında biz əyani şəkildə görürük ki, şəxsiyyətlərin tarixdəki rolu bəzi hallarda əvəzolunmaz olur. Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev dühası bugünkü Azərbaycanın uğurlu inkişafının təməlində dayanan bir amildir”.

Azərbaycan vətəndaşları bugünkü gerçəkliyi və reallığı Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən Heydər Əliyev siyasətinin bilavasitə nəticəsi kimi qəbul edirlər. Varislik Azərbaycan xalqının əvvəlki tarixi dövrlərdə əldə etdiyi nailiyyətləri öyrənmək, prinsipial olaraq əldə edilənləri gələcək nəsillərə ötürməkdir. Bu gün Heydər Əliyev siyasi məktəbinin varisi və layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyevdir. Belə ki, İlham Əliyevin Prezident kimi səlahiyyətlərinin icrasına başladığı ilk gündən hakimiyyəti xalqa xidmət vasitəsi hesab etdiyini bildirməsi heç də təsadüfi deyil. Ölkə rəhbərinin ümummilli lider Heydər Əliyev siyasi xəttini yüksək səviyyədə davam və daha da inkişaf etdirməsi müasir dövrdə Azərbaycanın dinamik tərəqqisini şərtləndirən mühüm amil kimi çıxış edir.

Dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət sayəsində son 10 il ərzində Azərbaycan bölgənin iqtisadi baxımdan ən sürətli, dinamik inkişaf edən ölkəsinə çevrilib. Bir tərəfdən zəngin neft və təbii qaz qaynaqlarının dünya bazarına nəqlinə imkan verən layihələrin reallaşması, bunun nəticəsində gəlirlərin sürətlə yüksəlməsi, digər tərəfdən isə bu gəlirlərin səmərəli şəkildə nəzarət edilməsinə və iqtisadiyyatın fərqliliyinə yönəlik ardıcıl islahatların həyata keçirilməsi müsbət bəhrələr verir. Azərbaycan iqtisadiyyatı son 10 ildə dünyada sürətlə inkişaf edən iqtisadiyyatlardan biri olmaqla ötən bu müddətdə ölkəyə 130 milyard dollardan çox sərmayə qoyulub, ümumi daxili məhsul 3 dəfə, sənaye istehsalı 2,5 dəfə artıb. Ölkənin valyuta ehtiyatlarının həcmi 2013-cü ildə 50 milyard dollar səviyyəsinə yüksəlib. Xalqın sərvətinin ədalətli bölgüsü, habelə vəsaitlərin xərclənməsində və akkumulyasiyasında maksimum şəffaflıq ölkənin valyuta ehtiyatlarının ilbəil artmasına və ölkədə 10 ildə yoxsulluq səviyyəsinin on dəfə azalaraq 50 faizdən 5,5 faizə düşməsinə səbəb olmuşdur. Bu gün Azərbaycanda işsizlik göstəricisi 5 faiz həddindədir, ölkəmizin xarici borcunun həcmi təxminən ÜDM-in 7-8 faizi qədər, valyuta ehtiyatlarının həcmi isə təxminən ÜDM-in 70 faizi səviyyəsindədir.

Eyni zamanda, ötən bu müddət ərzində iqtisadiyyatda qeyri-neft sektorunun çəkisi artaraq onun neftdən asılılıq riskini azaldıb. Hazırda Azərbaycan xarici investisiyalara ehtiyacı olan ölkədən bölgədə və onun xaricində böyük əhatəli investisiyalar yatıran ölkəyə çevrilib. Ötən on il ərzində sosial infrastrukturun yaradılması ilə bağlı böyük işlər görülüb – yüzlərlə məktəb, xəstəxanalar, Olimpiya kompleksləri, digər sosial

obyektlər tikilib və təmir edilmişdir. İnvestisiya proqramında nəzərdə tutulmuş layihələr bu gün də uğurla həyata keçirilir.

Dövlətin qarşısında duran ən əsas vəzifələrdən biri qeyri-neft sektorunu inkişaf etdirmək idi. Bununla əlaqədar ölkəmizdə bir çox iş görülməklə yanaşı, bu gün də quruculuq işləri böyük uğurla davam etdirilir. 2012-ci ilin statistik göstərircilərinə baxsaq, qeyri-neft sektorunda 11 faizdən çox artımı görə bilərik. Bu Azərbaycan iqtisadiyyatının artıq şaxələnməsinin göstəricisidir.

Ölkəmizdə müasir informasiya-kommunikasiya texnologiyalarına çoxlu sərmayə qoyulur. 2012-ci ilin fevral ayında Azərbaycanın "Azərspace-1" adlı ilk süni telekommunikasiya peykinin orbitə çıxarılması ölkəmizin bu sahədəki inkişafın ən yüksək göstəricisidir. Qürurla qeyd edə bilərik ki, Azərbaycan kosmik ölkələr klubuna daxil olub, texnoloji tərəqqiyə, innovasiyalı iqtisadiyyata sahib olan və uğurla inkişaf edən ölkədir.

Dövlət başçısı İlham Əliyev 2003-cü ildə Prezident seçiləndən bir il sonra 2004-cü ildə Azərbaycanın bütün gələcək inkişafı müəyyən edən "Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nı qəbul etməsi, bu iqtisadi inkişaf proqramında qarşıya qoyulmuş məqsədlərin mərhələ-mərhələ həyata keçirilməsi və əldə olunan inkişaf dünyada iqtisadi inkişafın yeni bir modelinin – Azərbaycan iqtisadi inkişaf modelinin yaranmasına səbəb oldu. Beləliklə, dünyanın öndə gələn maliyyə təşkilatlarının diqqəti Azərbaycana yönəldi. Dünya Bankı və beynəlxalq maliyyə şirkətlərinin illik hesabatlarında Azərbaycan investisiya yatırılacaq ölkələrin sırasında ön yerlərdən birini tutmaqla dünyanın inkişaf etmiş ölkələrinin diqqətini özünə cəlb etməyi bacardı. Dünya siyasi arenasında əhəmiyyətli bir yer tutan Azərbaycan, əlbəttə, bu zirvəyə Prezident İlham Əliyevin icra etmiş olduğu uğurlu siyasəti ilə nail olub.

Bu günlərdə keçirilən Vilnüs sammitində Prezident İlham Əliyev bir daha Azərbaycan siyasətinin müstəqil olduğunu dünyaya nümayiş etdirdi. Azərbaycanın mövqeyini qəti şəkildə ifadə etdi. Qürurverici haldır ki, sözügedən mötəbər tədbirdə Azərbaycan diplomatiyası çox gərgin mübarizə şəraitində gedən politik dartışmadan uğurla və qalibiyyətlə çıxdı.

*Beləliklə, bütün əldə olunan uğurlar Prezident İlham Əliyevi Azərbaycanda alternativsiz liderə, Cənubi Qafqaz regionunda isə Heydər Əliyevdən sonra gələn ikinci böyük siyasi xadimə çevirib. Qeyd olunanlara əsaslanaraq, əminliklə deyə bilərik ki, ümummilli lider Heydər Əliyev bu gün də bizimlə yaşayır, onun ideyaları uğurla davam etdirilir.*

**"Azərbaycan".-**2013.-10 dekabr.-N 272.-S.2.

# HEYDƏR ƏLİYEV: İKİ TARİX – BİR SİMA

**Cavanşir Feyziyev**
Fəlsəfə doktoru, millət vəkili

Bu gün orta və yuxarı yaş nəslinə mənsub olan soydaşlarımızı dünyagörüşü baxımından gənc nəsildən fərqləndirən önəmli məziyyətlərindən biri onların mahiyyət və struktur etibarı ilə bir-birinin tam əksi olan iki ictimai-siyasi formasiyada, iki fərqli cəmiyyətdə yaşaması və hər iki dövrdə cərəyan edən hadisələrin canlı şahidi olmasıdır. Bir çox gələcək onilliklərin tədqiqat mövzusu olacaq son 50 illik dövr bəşəriyyətin həyatına və o cümlədən xalqımızın taleyinə əhəmiyyətli şəkildə təsir etmiş güclü siyasi-iqtisadi və sosial transformasiyalar dövrü kimi tarixə çevrilməkdədir. Lakin bu tarix bizdən çox uzaqda deyil.

Yaxşı xatırlayırıq ki, gələcəyi dumanlı şəkildə güclə təsəvvür edilən, ictimai-sosial dayaqları mücərrəd "sovet xalqı" hesab olunan kommunizm epoxası iki yüz milyonluq bir toplumu siyasi-hərbi güc və ideoloji təzyiq vasitəsilə hələ heç kimə agah olmayan qeyri-müəyyən bir "xoşbəxt gələcəyə" necə sürükləyirdi. Az sonra tarixin də təsdiq etdiyi kimi, ancaq lümpen proletariatın icad edə biləcəyi "qırmızı ideologiya" hətta belə bir gələcəyin qurucuları üçün "Kommunizm qurucusunun əxlaq kodeksini" də bəyan etmişdi. Lakin mövcud olduğu 70 il ərzində nə bu ideologiyanın sahibləri, nə onun bələdçiləri, nə də "xoşbəxt gələcək" qurucuları olan sovet vətəndaşları nəyi qurmaq və yaratmaq istədiklərini və buna necə nail olacaqlarını başa düşmədilər. Nəticə isə göz qabağındadır: əzilən, alçalan, milli, mənəvi dəyərlərindən, elementar insani heysiyyatlarından məhrum edilən, insan və cəmiyyət qanunayğunluqlarından kənarda gərəksiz bir əşya kimi həyat sürməyə məhkum edilən, mənəvi və fiziki cəhətdən məhv edilən milyonlarla insan həyatı. Baş tutmamış kommunizm epoxasının ümumi mənzərəsi məhz bundan ibarət idi.

Lakin bu ümuminin içərisində sezilərək və ya sezilmədən fərqlənən, dövrün qayda-qanunları çərçivəsindən kənarda düşünən beyinlər və sovet örtüyü altında da olsa öz fəaliyyətini insani duyğuların, daha böyük bəşəri ideyaların gerçəkləşməsinə yönəldən insanlar da vardı. Lümpenlərin lümpen düşüncələrini və dünyagörüşünü milyonların beyinlərinə sırımaqla gələcəyə daşımağa çalışan sovet bürokratiyasının hakimlik etdiyi yeknəsək düşüncə və müti həyat tərzi fonunda belə insanların amalları və düşüncələri bir çox hallarda onları cəmiyyətin ön sıralarına çıxarırdı. Həmin dövrdə ön sırada olmağın aqibəti isə yalnız iki sonluqla bitə bilərdi: ya Şöhrət zirvəsi, ya da Dar ağacı. Aşağıdan yuxarıya doğru bu sistemin bütün pillələrini əzmlə adlayıb sovet maşınının ən vacib mexanizmlərini idarə etmiş o zamankı bir çox partiya və hökumət "ulduzlarının" faciəvi sonluğu da bunun sübutu və sovet tarixinin reallıqlarıdır.

Bütün bunlar sovet rejiminin girovunda öz mövcudluğunu sürdürən Azərbaycandan da yan keçməmişdi. Düşünən beyinlər, danışan dillər, "oxuyan tar"lar, bir sözlə hürriyyətə sövq edən açıq-gizli hər hansı əməllər dərhal "ifşa" olunur, millətin ən mütərəqqi fikir sahibləri dara çəkilir, Sibir çöllərində, NKVD və KQB zindanlarında həyatla vidalaşırdılar. Hüseyn Cavid, Əhməd Cavad, Salman Mümtaz, Mikayıl Müşfiq, Tağı Şahbazi Simurq, Bəkir Çobanzadə, Yusif Vəzir Çəmənzəminli, Hənəfi Zeynallı, Seyid Hüseyn kimi xalqın gələcəyinə yol açmaq üçün beyinlərə işıq, düşüncələrə mübarizə ruhu gətirməyə cəhd göstərən minlərlə millət övladını da məhz bu sistem xalqımızın əlindən aldı.

İndi başqa zamandır. Müstəqilliyimizi bərpa etməklə öz taleyimizə, öz milli ideologiyamıza və öz gələcəyimizə sahib çıxmaq imkanı qazanmışıq. Bu da asan başa gəlmədi. 20 Yanvar şəhidliyindən başlamış, Qarabağ torpaqlarında tərk edilən müqəddəs yurd yerlərimizin, bu yerlərdə torpağa gömülən minlərlə insan həyatının faciəsi hesabına Azad Xalqa və Müstəqil Dövlətə çevrildik. İndi gələcək haqqında təsəvvürlərimiz də, bu günkü düşüncə və həyat tərzimiz də fərqlidir, gələcəyə çıxdığımız yolumuz da başqadır. Məzmunca da , mahiyyətcə də tamamilə fərqli bir cəmiyyətin təşəkkül və təkamül mərhələsini yaşamaqdayıq. Bu yeni bir epoxadır. Bu iki dövr arasındakı keçidin özü də az qanlar aparmadı. İki fərqli epoxanı birləşdirən zaman intervalı isə tarixi nöqteyi nəzərdən nə qədər qısa görünsə da, kəskin ziddiyyətləri - siyasi-iqtisadi, maddi-mənəvi, sosial böhranları ilə yanaşı xalqımıza öz müstəqil dövlətçiliyini bərpa etmək şansını yaratmaq kimi əhəmiyyətli tarixi hadisələrlə də zəngindir. Belə nailiyyətlər isə ictimai-siyasi hadisələrin gedişində kortəbii surətdə əldə oluna bilməzdi. Buna aparan yolun başlanğıcında azadlıq və müstəqillik kimi müqəddəs amallara köklənmiş düşüncə sahibləri və bu tarixi dövr ərzində cərəyan edən hadisələri məhz bu məqsəd və məramların həyata keçməsinə doğru istiqamətləndirən fəaliyyət sahibləri olmalı idi və var idi. Böyük Mirzə Fətəlinin səpdiyi milli özünüdərk toxumlarından cücərib ilk milli cümhuriyyətimizin yaranmasına və sovet dövrünün "ət maşınından" keçərək bu günkü hürriyyətimizə qədər qət olunan tarixi yol milli əqidəmizin, milli məqsəd və məramlarımızın yetişdiyi, əzildiyi, mətinləşdiyi və nəhayət, qələbə çaldığı əzəmətli bir yoldur. Bu uzun, iztirablı, lakin şərəfli yolda mücadilə aparan maarifçilərimiz, cümhuriyyətçilərimiz, dissidentlərimiz öz

mübarizələrini məhz bu son qələbəyə çatdırmaq uğrunda öz canlarını, öz doğmalarını və öz həyatlarını fədakarlıqla qurban verdilər. Bu Möhtəşəm Qələbənin müəllifi olmaq səadəti isə sovet dövründə “Şöhrət apoqeyi” ilə “Dar ağacı” arasında cəsarətlə millətin gələcəyi üçün çalışan, müstəqillik dövründə böyük bir fədakarlıqla “həyatının qalan hissəsini də öz xalqına həsr edən” və nəhayət, “Azərbaycanlı olması ilə fəxr etdiyini” bütün dünyaya bəyan edən Heydər Əliyevə nəsib oldu.

Keçən əsrin 60-cı illərinin sonundan başlayaraq Azərbaycanda baş verən köklü dəyişikliklər məhz Heydər Əliyevin dəqiq məqsədlərə istiqamətlənmiş məqsədyönlü fəaliyyəti və siyasi iradəsi ilə baş verirdi. Təsadüfi deyil ki, məhz onun rəhbərliyi dövründə ilk dəfə olaraq milli dövlətçilik təfəkkürünə malik olan yerli milli kadrlar hazırlandı və ali hakimiyyət orqanlarında yerləşdirildi. Azərbaycanlı mütəxəssislər sovet coğrafiyasının bütün koordinatlarında işləməyə, yaşamağa və tanınmağa başladılar. Azərbaycan iqtisadiyyatı on beş “zorən müttəfiq” respublikanın sırasında axırıncı yerlərdən sürətlə irəliləyərək ön sıralara yaxınlaşdı. Elmdə, incəsənətdə xüsusi istedad sahibi olan soydaşlarımız sovetlərin bütün ərazisində tanındı və bu ucsuz-bucaqsız ərazini məskunlaşdıran çoxsaylı millətlər tərəfindən sevildi. Başqa cür gələcəkdə “Sovet Azərbaycanı”nın içərisindən “milli Azərbaycan Respublikasını” yetişdirmək mümkün olmazdı. Hələ kommunist ideologiyasının inadkarlıqla xalqları və millətləri boğduğu bur şəraitdə qeyri-slavyan mənşəli bir dövlət adamının Sovet İttifaqı kimi nəhəng bir ölkənin ali siyasi hakimiyyətində təmsil olunması özü nə qədər çətin idisə, onun həmin mövqedən öz ölkəsinin milli mənafeyi naminə çalışması da bir o qədər çətin və demək olar ki, qeyri-mümkün idi. Belə təzadlı bir dövrdə bütün sovet sistemindəki bu qeyri-mümkünlüyü mümkün edən yeganə siyasətçi məhz Heydər Əliyev oldu. Sovet İttifaqının o vaxtkı dövlət rəhbərlərindən heç birinin siyasi taleyi Heydər Əliyevinki qədər qalibiyyətlərlə zəngin olmadı. Onların heç birinin siyasi irsi və siyasi kursu yeni, müstəqil bir dövlətin həyat yoluna çevrilmədi. Heydər Əliyev həyatının Şöhrət Zirvəsi ilə Dar Ağacı arasında uzun müddət davam edən mücadilə səhifəsi Qələbə ilə başa çatdı. Həyatın yeni səhifəsi açıldı, yeni mübarizə başladı. Bütün addımlarında öz xalqına, onun istedadına arxalanan və həqiqəti dərindən duymaq qabiliyyətinə malik olan Heydər Əliyev müstəqil Azərbaycan dövlətini onun tarixi ənənələri və çağdaşlıq prinsipləri əsasında qurmağın tarixi missiyasını da şərəflə yerinə yetirdi. O didilib parçalanan Azərbaycanı bütövləşdirərək regionun ən nüfuzlu dövlətinə çevirdi. Müstəqillik dövründə Azərbaycan məhz Heydər Əliyevin əsasını qoyduğu milli təməl üzərində, onun siyasi iradəsi ilə öz milli-tarixi ənənəsindən ayrılmadan suveren dövlətçiliyin təkamül prosesinə başladı, qlobal siyasi situasiyaya adaptasiya olunaraq, beynəlxalq münasibətlər sistemində öz yerini tutdu.

Iki fərqli tarix, iki fərqli cəmiyyət məhz Heydər Əliyevin simasında və fəaliyyətində birləşdi, dövlətçiliyimizin əbədiliyini, sarsılmazlığını və dönməzliyini təmin etdi. Heydər Əliyev – sözün əsl mənasında, siyasətdə qələbə simvoluna çevrildi.

Bu günlərdə AMEA-nın A. Bakıxanov adına Tarix İnstitutu tərəfindən Prezident kitabxanasında düzənlənən “Heydər Əliyev. Elmimizin keşiyində” adlı 2 cildli sənədlər və materiallar toplusunun təqdimat mərasimində səslənən fikirlərin əsas leytmotivi də məhz bundan ibarət idi. Ümummilli liderimiz Heydər Əliyevin xatirəsinə həsr olunmuş təqdimat mərasimində giriş nitqi ilə çıxış edən A. Bakıxanov adına Tarix İnstitutunun direktoru, Dövlət mükafatı laureatı, akademik Yaqub Mahmudov öz təqdimatında Heydər Əliyevin hər iki dövrdə xalqımızın milli maraqları naminə, dövlətçiliyimizin qurulması və möhkəmləndirilməsi uğrunda apardığı mücadilənin əhəmiyyətindən, Heydər Əliyev irsinin Azərbaycan xalqının gələcəyi üçün müstəsna rolundan, Heydər Əliyev ideallarının əbədiyaşarlığından bəhs etdi. Sovet dövründə, kommunist sisteminin amansız təqibləri şəraitində Heydər Əliyev fəaliyyətinin görünən və görünməyən tərəfləri haqqında tarixi faktlara və şəxsi xatirələrinə söykənən həqiqətləri açıqlayan akademik Yaqub Mahmudov Heydər Əliyevin timsalında bir insanın öz düşüncələri və əməlləri ilə öz həyatını bütünlüklə doğma xalqına həsr etməyin nadir nümunəsini göz önünə gətirdi. Səslənən çıxışlarda Heydər Əliyevin zamanla ayaqlaşmayıb, bir çox hallarda zamanın özünü belə çəkib irəliyə gətirən və yaxınlaşdıran bir şəxsiyyət olduğu onun əməli fəaliyyətinin konkret məqamları ilə təsdiq olundu. Öz ölkəsini və öz xalqını hələ o dövrdə içərisində bulunduğu sovet mexanizminin labirintlərindən məharətlə keçirərək irəli çıxarmaq və on minlərlə zəka sahiblərinin uğrunda qurban getdiyi tarixi gələcəyə – müstəqilliyə qovuşdurmaq üçün möhkəm özül yaratmaq Heydər Əliyevin bütün fəaliyyətinin başlıca qayəsi olmuşdur. Bu missiyasında Heydər Əliyev mifik xalq qəhrəmanlarımızın bu gün inanılması mümkün görünməyən şücaətinə və məharətinə imza atmışdır.

Bu gün artıq on ildir ki, Heydər Əliyevin xarizmatik baxışlarını gündəlik qaynar hadisələrin əks olunduğu canlı reportajlardan, millətin gələcəyi üçün taleyüklü məsələlərin müzakirə olunduğu gərgin müşavirələrdən, Azərbaycanın haqlı tələblərini dönə-dönə səsləndirdiyi beynəlxalq tribunalardan deyil, hər bir azərbaycanlıya səmimi bir təbəssümlə baxan portretlərindən izləyirik. Lakin siyasətimiz, ideologiyamız və gələcəyə ümidlərimiz onun siyasi baxışlarına, onun dəst-xəttinə və onun öz xalqına olan sonsuz inamına əsaslanır.

Şərqdə bir çox "ilk"lərin təşəbbüskarı və müəllifi olmaqla bəşəriyyətin təkamül tarixinə öz adını yazmış Azərbaycan bu gün də əhatəsində yerləşdiyi regionun, çox qədim zamanlardan geniş Avrasiya məkanında lövbər salmış möhtəşəm türk sivilizasiyasının cazibə mərkəzinə çevrilməkdədir. Geosiyasi anlamda getdikcə çəkisi artan, sivilizasiyaların, müxtəlif mədəniyyətlərin dialoq və qarşılıqlı anlaşma məkanına çevrilməklə dünya miqyasında daim nüfuzu yüksələn Azərbaycan dünya birliyinin mütərəqqi inkişafına öz töhfələrini verməkdədir. Bu uğurlar Heydər Əliyevin Azərbaycanın gələcəyi haqqında təsəvvürlərinə, məqsəd və məramlarına cavab verən siyasi praqmatikanın nəticəsidir. Məhz bu yüksəlişi böyük bir uzaqgörənliklə müjdələyən Heydər Əliyev Azərbaycan dövlətinin gələcək taleyinə nikbin baxışlarını belə ifadə etmişdi: "Azərbaycan bütün dünyaya günəş kimi doğacaq." Bu günəşin istisinə sığınan Azərbaycan xalqı isə onu bir daha sönməyə qoymayacaqdır.

Dünya tarixinin ən böyük şəxsiyyətlərinin həyat və fəaliyyətini araşdıran və qələmə alan ingilis bioqrafı Uilyams Qraham özünün Heydər Əliyevə həsr etdiyi "Heydər Əliyev: Azərbaycanın yüksəlişi, enişi və yenidən yüksəlişi" adlı kitabında Heydər Əliyev fenomenini məlum tarixi-siyasi şəraitdə Azərbaycanın bütövlüyünü təmin edən ən güclü birləşdirici amil kimi dəyərləndirir. Müəllifin qənaətinə görə, Heydər Əliyev və Azərbaycan eyni tarixi mənəviyyat bioqrafiyasına, eyni taleyə malikdir. Heydər Əliyevin keçdiyi enişli-yoxuşlu, lakin sonu qalibiyyətli yol elə Azərbaycanın keçdiyi siyasi təlatümlərlə dolu, lakin gələcəyə sarsılmaz inamını heç vaxt itirməyən irəliləyiş yolunu xatırladır. Azərbaycanın irəliləyiş yolu isə sonsuz və daimidir, Heydər Əliyevin əziz xatirəsi kimi.

**"İki sahil".-**2013.-12 dekabr.-№ 234.-S.11.

# BÖYÜK ƏDƏBİYYAT HEYKƏLİ

**İsa HƏBİBBƏYLİ,**
AMEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı,
akademik

*Dünya şöhrəti qazanmış görkəmli yazıçı Çingiz Aytmatov XX əsr bədii düşüncəsinin və ümumiyyətlə, böyük ədəbiyyatın ən qüdrətli ustadlarından biri kimi qəbul olunur. Çingiz Aytmatov (1928-2008) dünya ədəbiyyatında yeni nəsrin əbədiyaşar yaradıcıları sırasına daxil olmuşdur. Bu böyük sənətkarın adı Ernest Heminquey, Markes, Folkner, Soljenitsın, Elis Munro və onlarca başqaları kimi dünyada əsərləri ən çox oxunan yazıçıların sırasında çəkilir. XX əsrin ikinci yarısında böyük ədəbiyyatda yeni tipli insan obrazının formalaşdırılmasında və təşəkkülündə Çingiz Aytmatovun əvəzsiz xidmətləri vardır.*

Sovet rejiminin sərt ideoloji tələblərinə baxmayaraq, Çingiz Aytmatov sadəcə, əməli, işi ilə deyil, mənəvi aləminin bütün zənginlikləri, qəribəlikləri ilə yeni olan sadə insanı ciddi bir ədəbiyyat hadisəsi səviyyəsində təbii şəkildə təqdim etmək vəzifəsini bacarıqla həyata keçirmişdir. Sovet dövründə Çingiz Aytmatovun milli mövqeni, yeni insanı və bəşəri problemləri böyük ədəbiyyat miqyasında ifadə etməklə yanaşı, həm də əsərləri vasitəsilə nəşr etdirib dünyada yaya bilməsi sosializm dövrünün möcüzələrindən biri idi. Bəzi sovet yazıçıları kimi Çingiz Aytmatov da əsərlərində əks etdirdiyi problemləri bir qədər gərginləşdirərək Nobel mükafatı alıb ölkəni tərk etmək imkanını gerçəkləşdirə bilərdi. Lakin Çingiz Aytmatov sosializm cəmiyyətində yaşayıb, həm də sovet gerçəkliyinin sədlərini aşa bilən böyük ədəbiyyat yaratmağın təkrarsız nümunəsini göstərmişdir. Hətta bəzi Nobel mukafatı laureatları ilə müqayisədə Çingiz Aytmatovun əsərlərində dərin həyati proseslər siyasi motivlərdən daha çoxdur.

Çingiz Aftmatov Nobel mükafatı səviyyəsində yazıb-yaradan və Sovetlər İttifaqında qalıb yaşamağı bacarmış qüdrətli dünya yazıçısı idi. Fikrimcə, bu mənada Nobel mükafatı almamış Çingiz Aytmatovun xidmətləri bu böyük beynəlxalq mükafatın laureatlarından heç də az deyil. Dünyanın digər görkəmli yazıçılarının yaradıcılığına və fəaliyyətinə kölgə salmadan, əksinə, onlardan hər birinin əsərlərinə obyektiv şəkildə yüksək qiymət verməklə, həm də bu qənaətdəyəm ki, Çingiz Aytmatovun yaradıcılığı ilə dünya ədəbiyyatının yeni standartı meydana çıxmışdır. XX əsrin əvvəllərində ədəbiyyatda meydana çıxmış kiçik insanı hər yazıçı öz ölkəsində, Çingiz Aytmatov isə dünya ədəbiyyatı miqyasında böyük ədəbiyyatın əsas obrazına çevirə bilmişdir. Bəlkə də nə vaxtsa, dünyanın bu tipli ədəbiyyatı üçün də yeni bir beynəlxalq mükafat – Çingiz Aytmatov mükafatı da təsis ediləcəkdir.

Çingiz Aytmatovun əsərlərində və baxışlarında milliliklə bəşərilik vəhdət halındadır. Milliliklə bəşəriliyin dahiyanə harmoniyası Çingiz Aytmatov sənətinin özünəməxsusluğunu müəyyənləşdirir. Millilik və bəşəriliyin dialektik əlaqəsi və üzvi sintezi Çingiz Aytmatovun ümumdünya tarazlığı modelinin əsas dayaqlarını təşkil edir. Çingiz Aytmatov ədəbiyyatda insanı milli varlığı və bəşəri dəyəri ilə vəhdətdə təqdim etməyi zəruri saymış və yaradıcılığını bu harmoniya üzərində tarazlamışdır. Çingiz Aytmatovun yaradıcılığında millilik amili, ümumtürk ruhundan, qırğız etnik düşüncəsindən doğan və qlobal dünyanın hadisəsi səviyyəsində ümumiləşdirilən yüksək və dərin insani keyfiyyətlər şəklində təzahür edir. Beləliklə, Çingiz Aytmatovun yaradıcılığında ayrılıqda götürülmüş bir obrazın və ya xalqın timsalında bütovlükdə bəşər övladı üçün əhəmiyyətli olan problemlərin ümumiləşdirilməsi kimi məsuliyyətli və şərəfli vəzifə özünün orijinal bədii həllini tapmışdır. Dünya ədəbiyyatında milli ilə bəşərinin vəhdətini əks etdirmək yeni hadisə olmasa da, bu sahədə Çingiz Aytmatov öz modelini yaratmışdır. Çingiz Aytmatovun yaradıcılığında milli və bəşəri anlayışlarını geniş mənada insanlıq düşüncəsi birləşdirir. Hətta Çingiz Aytmatovun əsərlərində həm də özünü, millətini və dünyanı qavramış yazıçı mənəviyyatını da ifadə etmişdir. Tanınmış türk alimi, professor Ramazan Qorxmaz doğru olaraq yazmışdır ki, "Çingiz Aytmatov Simurq quşu kimi həm bütün insanlarda özünü, həm də özündə bütövlükdə insanlığı duymağa çalışır". Beləliklə, zəngin və dərin yazıçı dünyası milli düşüncə ilə bəşəri qavrayışı özündə cəmləşdirir. Bu məqamda Çingiz Aytmatov özü də geniş mənada əsərlərindəki milli və bəşəri düşüncələrin rəmzinə çevrilir.

Bundan başqa, Çingiz Aytmatovun ümumdünya tarazlığı modelinin daha bir özünməxsusluğu da bu dahi sənətkarın dünyadakı problemləri qan tökmək, müharibələrə təkan vermək yolu ilə deyil, mədəniyyəti, ədəbiyyatı ön mövqeyə çəkmək üsulu ilə həll etməyə hesablanmış dahiyanə çağırışları idi. Çingiz Aytmatovun 20 il əvvəl meydana çıxmış "Müharibə kultunun yerinə mütləq mədəniyyət gəlməlidir" – çağırışı bu gün dünənkindən də aktual səslənir. Millilik və bəşəriliyin Çingiz Aytmatov modeli insanlığa ədalət, sülh, birlik vəd edir.

Göründüyü kimi, Çingiz Aytmatov Asiya ağırlıqlı və Avropa meylli yazıçıdır. Böyük sənətkarın yaradıcılığında milli varlığın ifadəsi ilə bəşəri meyarların vəhdəti Asiya və Avropa düşüncə miqyasları hüdudlarında öz həllini tapır. Qırğız həyatının timsalında təqdim olunan Asiya gerçəkliyi və Avropa düşüncəsi əsasında ədəbi-bədii yanaşmalar onun yaradıcılığında üzvi sintez halında ifadə olunur. Çingiz Aytmatov öz əsərlərində milli dəyərlərlə bəşəri düşüncənin ideal balansını tapmışdır. O, bütün kökləri, nəbzi, qayəsi etibarilə ümumtürk təfəkküründən, qırğız ruhundan doğan dahiyanə bədii əsərlərində əsas ideyanı ifadə edərkən nümayiş etdirdiyi cəsarət, ümid bəslədiyi gələcək mənasında həm doğma xalqına və həm də ümumiyyətlə, insanlığa şərəflə xidmət etmişdir.

Çingiz Aytmatovun Asiya düşüncəsinin ana xətləri mənsub olduğu qırğız xalqının taleyinin və mənəvi dünyasının əsasında formalaşdırdığı dərin həyat fəlsəfəsində və ümumiləşdirmələrində əks-səda tapır. O, qırğız ellərinin və çöllərinin ruhunu bütün reallıqları və özünəməxsusluqları ilə böyük ədəbiyyatda canlandırmaqla bütövlükdə Orta Asiya coğrafiyasının ümumiləşmiş obrazını yaratmışdır. Dünya xalqları Qırğızıstanı və Orta Asiyanı Çingiz Aytmatovun əsərləri vasitəsilə xəritədəkindən də yaxından tanımaq imkanı əldə etmişlər. Bu mənada ümumtürk təfəkkürünün möhtəşəm daşıyıcısı olan Çingiz Aytmatov ilk növbədə qırğız ruhunun böyük ədəbiyyat heykəlidir. O, mənsub olduğu xalqı və ölkəni ana torpaq və insan haqqında bəşəri düşüncə səviyyəsində təqdim etmək istedadı ilə dünya ədəbiyyatı məkanına daxil olmuşdur.

Çingiz Aytmatov "Manas" dastanından doğulan, əsərləri ilə yeni tipli Manas fəlsəfəsi və müasir ədəbiyyat təfəkkürü yaradan böyük mütəfəkkirdir. Obrazlı şəkildə desək, insanlığa xidmət edən ölməz əsərləri ilə birlikdə Çingiz Aytmatov dünyanın ən uca zirvələrindən biri olan Tyan Şan dağlarında bədii sözün qüdrətinə, böyük ədəbiyyata ucaldılan möhtəşəm abidədir. Onun yüksək və təkrarsız istedadının məhsulu olan bədii əsərləri qitələri, ölkələri, xalqları yaxınlaşdıran və doğmalaşdıran böyük sənət körpüləridir. Çingiz Aytmatovun "Əsrə bərabər gün" əsəri ideyası və bədii-sənətkarlıq xüsusiyyətləri etibarilə XX əsrin ən möhtəşəm epopeyasıdır. "Əsrə bərabər gün" romanının qəhrəmanı Boranlı Yedigey dünya ədəbiyyatında bənzəri olmayan, bütöv bir epoxanı, nəhayət, mənsub olduğu xalqın və məmləkətin taleyini ümumiləşmiş şəkildə əks etdirən nadir bədii obrazdır. Nayman Ana milli kimliklərin unutdurulması proseslərinin yaşandığı dünyada yenidən oyanıb özünə "Mən kiməm" sualını verib, cavab axtaran insanlığın milli-mənəvi özünədərkinin tamam yeni bədii təcəssümüdür. "Əsrə bərabər gün" romanı dünya ədəbiyyatının son bir əsrlik dövrünün möhtəşəm yekunu, yenidən özünüdərkə qayıtmağa can atan müasir epoxanın ədəbiyyatının start nöqtəsidir.

Çingiz Aytmatovun düşüncəsində Avropa meyli onun əsərlərində siyasi və mənəvi əsarətin gərginliklərini, əzablarını, milli azadlığın çətin və əzablı yollarını böyük cəsarətlə ifadə etmək bacarığında öz əksini tapmışdır. O, milli-mənəvi özünüdərki hər bir xalqın, o cümlədən qırğız xalqının böyük borcu və amalı səviyyəsində təqdim etmişdir. Sovet imperiyasının sərt rejimi çərçivəsində bütövlükdə insan və ya konkret bir millət haqqında taleyüklü böyük ideyalları əks etdirmək Çingiz Aytmatovun qəhrəmanlığı idi.

Asiya gerçəkliyi haqqındakı böyük ədəbiyyata örnək olan, milli və bəşəri mövqenin sintezi əsasında yazılmış əsərləri ilə Çingiz Aytmatov geniş mənada Avropanı və ümumiyyətlə, dünyanı təəccübləndirməyi və düşündürməyi bacarmışdır. Çingiz Aytmatov postsovet dövrü ədəbi-ictimai fikrinin axırıncı böyük ədəbiyyat mogikanıdır.

Janrından asılı olmayaraq Çingiz Aytmatovun bütün əsərlərində roman ağırlığı var. Çingiz Aytmatov dünyanı roman miqyasında qavrayan və ifadə edən qüdrətli yazıçıdır. Görkəmli sənətkarın həcminə görə povest kimi görünən əsərləri əhatə etdiyi problemlərə və maraqlı, keşməkeşli insan taleyini əks etdirməsinə görə ciddi roman təəssüratları yarada bilir. "Cəmilə", "Əlvida, Gülsarı", "Ana tarla", "İlk müəllim" kimi kiçik povestlərin daşıdığı böyük ideya-mənəvi yük cild-cild romanlarla müqayisədə ağır gələr. Bu əsərlərlə dünya ədəbiyyatı yeni süjetlərlə və obrazlarla təzələnmiş və zənginləşmişdir. XX əsrin əllinci illərində, otuz yaşlı Çingiz Aytmatovun yaratdığı Cəmilə obrazı təkcə sovet ədəbiyyatında deyil, bütövlükdə dünya ədəbiyyatında yeni hadisə səviyyəsində qarşılanmışdır. Təsadüfi deyildir ki, məşhur fransız yazıçısı Lui Araqon "Cəmilə" povestini "dünyanın ən gözəl eşq hekayəsi" kimi dəyərləndirmişdir.

Qazax ədəbiyyatının klassiki Muxtar Auezovun "Literaturnaya qazeta"nın 23 oktyabr 1958-ci il tarixi nömrəsində çap etdirdiyi "Cəmilə" povesti haqqında təəssüratlarını əks etdirən "Yolun açıq olsun" adlı məqaləsi Çingiz Aytmatovun böyük ədəbiyyata təqdimatı kimi mühüm əhəmiyyət kəsb etmişdir. Məqalədə deyilirdi: "Cəmilə" Çingiz Aytmatovun ilk əsəri deyildir… Məncə "Cəmilə" ilə özünəməxsus parlaq istedadını nümayiş etdirən bu əsərində Aytmatovun təsvir etmək gücünün yüksək bir noqtəyə çatdığı qəti şəkildə görünür… Doğrusu, Çingiz Aytmatovun qırğız ədəbiyyatına bir yenilik kimi daxil olan ən mühüm özünəməxsusluğu insanın duyğularını və münasibətlərini yad bir şəxs kimi deyil, onları tam mənası ilə anlayan bir gözlə, son dərəcə təbii bir şəkildə canlandırmasıdır."

Çingiz Aytmatovun digər əsərləri və qəhrəmanları da dünyada yeni ədəbiyyatın bənzərsiz təzahürləri olaraq qəbul edilmişdir. Cəmilə, Daniyar, Sadıq, Tolunay, Aysel, Altınay, Baytemir, Toğulan, Altın və başqaları Çingiz Aytmatovun nadir istedadından və dərin müşahidələrindən doğulan yeni tipli obrazlardır. Çingiz Aytmatovun yaratdığı obrazlar sovet ədəbiyyatında model kimi qəbul edilmiş müsbət qəhrəman və mənfi obraz qəlibini aşıb keçən, bu ideoloji formatın fəlsəfəsini dağıdan hadisədir. Çingiz Aytmatovun ədəbiyyatda sovet adamını yox, sadəcə olaraq təbiiliyi və gərginliyi ilə insanı təsvir etmişdir. Tanrı dağlarının ətəklərində, yovşanlı çöllərdə yaşayıb çalışan bu adi insanların taleyində bütövlükdə insanlığın taleyi və düşüncələri öz əksini tapmışdır. Beləliklə, Çingiz Aytmatovun əsərləri, ideyaları və obrazları ilə dünya da, dünya ədəbiyyatı da irəliyə doğru dəyişikliklər prosesi yaşamalı olmuşdur. Dəyişilməkdə olan dünyanın yeniləşmə proseslərinin çox mükəmməl ədəbiyyatını Çingiz Aytmatov yaratmışdır.

Geniş mənada bütöv bir sistem halında Çingiz Aytmatovun əsərlərinin hamısı bir yerdə son yüzilliyin ən möhtəşəm epopeyasıdır. Bütövlükdə, bəşəriyyət, xüsusən də, qırğız xalqı həmin çoxcildlik və dərin mənalara malik Çingiznamədə özünün dünənini tapdığı kimi, bu gününü də güzgüdə olduğu kimi görə, sabahına gedən yolları da müəyyən edə bilir. Yer kürəsinə Qırğızıstanla ərazi etibarilə Qazaxıstanı qovuşduran və Orta Asiya ilə əlaqələndirən Talas vadisindən baxan Çingiz Aytmatov XX əsrə gətirdiyi süjetlər, ideyalar və obrazlarla dünyada yeni ədəbiyyat təfəkkürü formalaşmışdır. Dünya ədəbiyyatının fonunda möhtəşəm ədibin əsərləri əzəmətli bir abidənin pyedestalı, bu əsərlərin müəllifi olan qüdrətli yazıçı Çingiz Aytmatov isə onun heykəlidir. Bu möhtəşəm ədəbiyyat abidəsinin baş memarı da Çingiz Aytmatovdur.

Manasın böyük oğlu Çingiz Aytmatovun adı və əsərləri Azərbaycanda da məşhurdur. Azərbaycan Çingiz Aytmatovun əsərlərində əks etdirdiyi ideyaların, tarixi-mənəvi proseslərin tale ortağıdır. Dünya ədəbi-ictimai fikrinin qüdrətli təmsilçisi, qırğız ədəbiyyatının görkəmli klassiki Çingiz Aytmatovun əsərləri Azərbaycanda ana dilində yazılmış bədii ədəbiyyatın ən qiymətli nümunələri kimi oxunur. Çingiz Aytmatovun demək olar ki, bütün əsərləri Azərbaycan xalqının dəyərli mənəvi sərvətinə çevrilmişdir. Bakıda 2008-ci ildə keçirilmiş Çingiz Aytmatov həftəsi xalqlarımızın və ədəbiyyatlarımızın qardaşlığının, ölkəmizdə böyük sənətkara bəslənilən xüsusi ehtiramın daha bir hadisəsi olmuşdur. Vaxtilə xalq şairi Bəxtiyar Vahabzadənin Çingiz Aytmatovdan “qan qardaşı” kimi söz açması bütövlükdə Azərbaycan xalqının böyük yazıçıya bəslədiyi ümumxalq ehtiramını ifadə edir. Bəxtiyar Vahabzadə böyük qürurla yazırdı ki: “Aytmatov hər şeydən öncə, mənim qan qardaşımdır. O, qırğız torpağının əli qələm tutan Batır Manası olmaqla yanaşı, həm də bütün türk dünyasının üzünü ağ edən XX əsrin klassikidir… Aytmatov qəleminin sehri, ecazı dünya ədəbiyyatına misilsiz incilər bəxş edib… Çingiz Aytmatov mənim üçün yaş həddinə sığmayan, əsərlərilə çoxdan əbədiyyətə qovuşan sənət cəngavəridir”.

Dəfələrlə ölkəmizdə olmuş Çingiz Aytmatov Azərbaycan xalqı və mədəniyyəti haqqında qiymətli fikirlər söyləmişdir. O, Azərbaycanın böyük demokrat yazıçısı Cəlil Məmmədquluzadənin yaradıcılığını yeni nəsrin mühüm hadisəsi kimi dəyərləndirmişdir. Çingiz Aytmatovun qüdrətli Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin dünya ədəbiyyatındakı yeri və yaradıcılığındakı novatorluq barəsində 1967-ci ildə deyilmiş aşagıdakı fikirləri yazıçı təəssüratından çox mütəfəkkir bir şəxsiyyətin dərin düşüncəsini aydın şəkildə ifadə edir: “Müasir dövrdə milli ədəbiyyatların, xüsusən də, bədii nəsrin inkişafında Cəlil Məmmədquluzadə yaradıcılığının əhəmiyyətini dəyərləndirməmək mümkün deyildir. O, türk xalqları ədəbiyyatında realist nəsr məktəbinin əsasını qoymuşdur. Böyük sənətkar həm də alovlu satirik, mükəmməl ruhlu yazıçı və sosioloq kimi də çıxış edir. O, bütün hallarda yeniləşməyə nail ola bilmişdir”.

Qeyd etmək lazımdır ki, XX əsrin əvvəllərində bədii nəsr sahəsində görkəmli Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin göstərdiyi hünəri keçən yüzilliyin ikinci yarısından sonra özünəməxsus cəsarət və uzaqgörənliklə böyük qırğız ədibi Çingiz Aytmatov nümayiş etdirmişdir. Nəticə etibarilə Molla Nəsrəddin təxəllüsü ilə böyük şöhrət qazanmış Cəlil Məmmədquluzadə və Manasın böyük oğlu olaraq qəbul edilmiş Çingiz Aytmatov dünyada yeni nəsrin böyük qurucuları kimi dərin iz qoymuşlar.

Çingiz Aytmatovun Azərbaycan yazıçılarından Mirzə Fətəli Axundzadə, Səməd Vurğun, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Anar və başqalarının yaradıcılığına verdiyi yüksək qiymət Azərbaycan ədəbiyyatında gedən mühüm dəyişikliklərin fonunda yaranan böyük ədəbiyyatın obyektiv şəkildə dəyərləndirilməsi ilə yanaşı, həm də ədəbiyyatımızın geniş miqyasda təqdim olunmasına da xidmət etmişdir. Qüdrətli sənətkarın xalq şairi Bəxtiyar Vahabzadə, xalq yazıçısı Anar, Şahmar Əkbərzadə, Hidayət, Hüseynbala Mirələmov, Cəmil Əlibəyov və başqaları ilə dostluğu xalqlarımız arasındakı çoxəsrlik əlaqələrin yeni mərhələsini təşkil edir. Azərbaycanın xalq yazıçısı Anar çox haqlı olaraq yazır ki, Çingiz Aytmatovla “biz də qürur duyuruq”. Türk xalqlarından hər biri Çingiz Aytmatovu öz xalqının doğma yazıçısı olaraq qəbul edir. Çingiz Aytmatov dünyada oxşar taleləri yaşayan, insan, zaman, cəmiyyət və gələcək haqqında eyni düşüncədə olan xalqların hamısının yazıçısıdır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin böyük siyasətdəki yeri və xalqına xidmətləri haqqında Çingiz Aytmatovun aşağıdakı fikirləri keşməkeşli bir epoxanın fonunda qüdrətli bir şəxsiyyət barəsində roman

səviyyəsində ifadə olunan dərin mənalı ümumiləşdirmələr kimi səslənir. “Heydər Əliyev həqiqətən də, tarixi, hətta əfsanəvi bir şəxsiyyətdir. Bu, sovet dövründə də belə idi, bugünkü MDB məkanında, xeyli çətinləşmiş müasir dünya şəraitində də belədir. Heydər Əliyev hər zaman xalqının xidmətində olmuşdur.

Heydər Əliyev və onun yaşıdlarının və hətta ondan cavan olan bir çox siyasi xadimin bacarmadığı xüsusiyyəti – müasir dövrün ən aktual çağırışlarına hazır olmağı nümayiş etdirə bilmişdir. Məhz Heydər Əliyevin zəngin təcrübəsinin və humanitar dünya görüşünün genişliyi nəticəsində indi Azərbaycanda sabitlik, tolerantlıq, mədəniyyət, maarifçilik hökm sürməkdədir. Bütün bunlar isə Azərbaycan dövlətinin müasir inkişafını və tərəqqisini təmin edəcək əsas amillərdir!”

Eyni zamanda, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də böyük yazıçı və ictimai xadim Çingiz Aytmatovun şəxsiyyətinə və xidmətlərinə yüksək qiymət vermişdir: “Dünya ədəbiyyatı xəzinəsinə gözəl əsərlər bəxş etmiş Çingiz Aytmatov həm Qırğızıstanın, həm də bütün türk dünyasının fəxridir”.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2008-ci ildə dünya şöhrətli yazıçı Çingiz Aytmatovu “Dostluq” ordeni ilə təltif etməsi bütövlükdə bu böyük söz ustadına, onun ölməz sənətinə Azərbaycanda verilmiş yüksək qiymətlə yanaşı, həm də bəslənilən ümumxalq ehtiramını əyani şəkildə ifadə edir. Prezident İlham Əliyevin 25 fevral 2008-ci il tarixdə Bakıda “Dostluq” ordeninin təqdimetmə mərasimindəki aşağıdakı fikirləri Çingiz Aytmatovun Azərbaycana münasibətinin dərin mahiyyətini aydın surətdə mənalandırır: “Siz həmişə, bütün dövrlərdə Azərbaycanın dostu olmuşsunuz. Bu sovet dövründə də belə olub, …müstəqillik dövründə də… Çətin anlarda siz həmişə ədalətin, sülhün, əməkdaşlığın tərəfdarı kimi öz qətiyyətli sözünüzü demisiniz”.

Azərbaycan teatrları Çingiz Aytmatovun irsinə müraciət etmişlər. Böyük ədibin görkəmli qazax yazıçısı Muxtar Şaxanovla birlikdə yazdığı əsərlər də Azərbaycan teatr səhnəsində nümayiş etdirilmişdir. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram Teatrında 2013-cü ildə Çingiz Aytmatovun “Gün var əsrə bərabər” romanı əsasında hazırlanmış “Manqurt” tamaşasının səhnəyə çıxarılması ölkəmizin mədəni həyatında əlamətdar hadisə olmaqla bərabər, həm də milli-mənəvi özünüdərk proseslərinin daha da dərinləşməsində böyük ədibin qiymətli irsindən müxtəlif formalarda istifadə ənənəsinin davam etdirilməsinə nümunədir.

Çingiz Aytmatovun həyatı və yaradıcılığının elmi şəkildə tədqiqi sahəsində də ölkəmizdə müəyyən addımlar atılmışdır. Mədəniyyət və Turizm Nazirliyi tərəfindən nəşr edilmiş məqalələr və xatirələr toplusu Azərbaycan aytmatovşünaslığının ümumiləşdirilmiş təqdimatlarından biridir. Son illərdə yeni elmi nəslin çap etdirdiyi kitablar, müdafiə olunmuş dissertasiyalar Çingiz Aytmatov sənətinə elm səviyyəsində yanaşmanın uğurlu başlanğıcıdır. Bütün bunlarla bərabər, Çingiz Aytmatov və Azərbaycan mövzusu geniş və sistemli bir tədqiqatın, ədəbi əlaqələr üzrə qiymətli bir monoqrafiyanın mövzusu ola bilər.

Çingiz Aytmatovun böyük idealları və ölməz əsərləri yeni dünyanın inkişafına, ölkələrimiz və xalqlarımız arasındakı dərin bağlılıqların daha da möhkəmləndirilməsinə şərəflə xidmət edir. Planetimizdə yeni dünya təfəkkürünün formalaşmasında mühüm rolu olan Çingiz Aytmatovun ölməz əsərləri və idealları həmişə müasir cəmiyyətin və insanlığın yollarına gur işıq salır.

**“Azərbaycan”.-**2013.-11 dekabr.-N 273.-S.6.

# TARİX MİSSİYA

**Nizami CƏFƏROV,**
Milli Məclisin Mədəniyyət komitəsinin sədri,
AMEA-nın müxbir üzvü

**Azərbaycan xalqının ümummilli lideri, dünya miqyaslı ictimai- siyasi xadim, böyük mütəfəkkir Heydər Əliyevin tarixi xidmətləri haqqında danışılarkən, məlum olduğu kimi, əsas diqqət onun dövlət quruculuğu missiyasına verilir ki, bu da tamamilə təbiidir. Hər şeydən əvvəl ona görə ki, Heydər Əliyev Azərbaycanda, ümumən Sovetlər Birliyində siyasi nüfuz qazanmağa başladığı ilk illərdən – keçən əsrin 60- cı illərinin ortalarından enerjisini, əsasən, Azərbaycanda milli, müasir və Sovetlər Birliyinin imkan verəcəyi qədər müstəqil bir dövlətin qurulmasına həsr etmiş, bir neçə mərhələdən keçən kifayət qədər inamlı, ardıcıl mübarizələrdən sonra – 90- cı illərin əvvəllərindən başlayaraq müstəqil Azərbaycan dövlətini həm qurmuş, həm də onun inkişafı üçün mükəmməl strateji perspekivlər müəyyən etmişdir. Bu, əlbəttə, mənsub olduğu xalqın iradəsini ifadə edən böyük liderin əsas tarixi missiyası idi… Bununla belə, Heydər Əliyevin dövlət quruculuğundan heç də kiçik olmayan bir missiyası da millət quruculuğu idi ki, fikrimizcə, elmi tədqiqatlarda həmin məsələyə, hələ ki, lazımi səviyyədə (və miqyasda) diqqət yetirilmir.**

Politoloji mülahizələrə görə, dövlət quruculuğu xeyli dərəcədə siyasi-adminstrativ hadisə olduğu halda, millət quruculuğu mənəvi- siyasi prosesdir. Və elə bir möhtəşəm prosesdir ki, adətən, yüz illər boyu davam edib, xalqın müxtəlif tarixi dövrlərdə, mərhələlərdə təbii olaraq yetişdirdiyi bir neçə ziyalılar, ictimai xadimlər, mütəfəkkirlər nəslinin çoxşaxəli, çoxmiqyaslı mübarizələri ilə müşayiət olunur.

Millət qurucusunun ən mühüm xüsusiyyəti bundan ibarətdir ki, mənsub olduğu etnosun, xalqın, millətin müstəqilliyi, inkişafı, dünyanın müasir (mədəni) millətləri səviyyəsinə yüksəlməsi uğrunda mübarizə aparır. Və əgər milli dövlət müstəqilliyinə nail olmaq qeyri- mümkündürsə belə, həmin mübarizədən imtina etməyib xalqın gücünü, yaradıcılıq enerjisini təmərküzləşdirməklə onu gələcəyə hazırlayır. Azərbaycanda millət quruculuğunun XIX əsrin əvvəllərindən başlayan, XIX əsrin sonu XX əsrin əvvəllərindən etibarən geniş vüsət alan zəngin bir tarixi vardır ki, onu aşağıdakı dövrlərə bölmək mümkündür:

1) XIX əsrin əvvəllərindən sonlarına qədər;
2) XIX əsrin sonu XX əsrin əvvəlləri;
3) XX əsrin 20- ci ıllərindən 60- cı illərinə qədər;
4) XX əsrin 60- cı illərindən sonlarına qədər;
5) XX əsrin sonlarından bu günə qədər.

Birinci dövr Abbasqulu ağa Bakıxanov, İsmayıl bəy Qutqaşınlı, Qasım bəy Zakir, Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani; ikinci dövr Əli bəy Hüseynzadə, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Məhəmməd Əmin Rəsulzadə, Mirzə Cəfər Topçubaşov, Fətəli xan Xoyski, Əhməd bəy Ağayev; üçüncü dövr Hüseyn Cavid, Cəfər Cabbarlı, Üzeyir Hacıbəyov, Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Mirzə İbrahimov… kimi ziyalılarla təmsil olunur.

Heydər Əliyevin bir millət qurucusu olaraq fəaliyyəti (və mübarizələri!) biri digərinin bilavasitə davamı olan dördüncü və beşinci dövrləri əhatə edir ki, həmin dövrlərdə Ziya Bünyadov, İsa Muğanna, İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Nəriman Həsənzadə, Xəlil Rza, Anar, Elçin… kimi ziyalılar da milli özünüdərk (və özünütəsdiq!) uğrunda mübarizə aparmış, böyük xidmətlər göstərmişlər.

Keçən əsrin ortalarından, xüsusilə, 60- cı illərdən Sovetlər Birliyinin ictimai- siyasi həyatında özünü göstərən "mülayimləşmə" prosesi ölkənin (özünəməxsus imperiyanın) hər yerində olduğu kimi, Azərbaycanda da milli təəssübkeşlik hisslərinin bu və ya digər dərəcədə açıq təzahürü üçün müəyyən şərait yaratdı. Və həmin şəraitdən düzgün, məqsədyönlü və məhsuldar istifadənin əsas qarantlarından biri (əslində, birincisi) Heydər Əliyevin şəxsində güclü milli liderin hakimiyyətə gəlməsi idi.

Ümumiyyətlə, böyük tarixi şəxsiyyətin millət quruculuğu prosesindəki mübarizədə uğurlarını təmin edən cəhətlər ən azı aşağıdakılardan ibarətdir:

1) mənsub olduğu etnosa, xalqa, millətə, ümumən etnik- mədəni sistemə təbii, tərəddüdsüz bağlılıqdan irəli gələn milli təəssübkeşlik;

2) xalqın tarixini, düşdüyü ictimai-siyasi vəziyyəti, sözün geniş mənasında, yaradıcılıq potensialını yüksək intellektlə dərindən dərk edib tərəqqi, təkamül üçün real, həyata keçirilməsi mümkün proqnozlar, perspektivlər müəyyən etmək istedadı;

3) özünəqədərki (və müasir) milli ictimai- siyasi, ideoloji maraqları təhlil edib ümumiləşdirmək, tarixdən gələn bu və ya digər səviyyədə formalaşmış milli ideologiyanı özündə ehtiva edib inkişaf etdirmək məharəti;

4) tarixin təcrübəsini rəhbər tutmaqla hakimiyyətin verdiyi imkanlara əsaslanaraq milli strateji maraqların həyata keçirilməsi üçün düzgün taktika yürütmək, keçmişin səhvlərindən imtina edib uğurlarını daha da təkmil formada təqdim etmək bacarığı;

5) milli mənəvi-ideoloji enerjinin təmərküzləşdirilməsi, müzakirələrə geniş meydan açılması, ictimai şüurdakı (və həyatdakı) qorxu, ətalət və tərəddüd simptomlarının mümkün qədər aradan qaldırılması, millətin mütərəqqi şəxsiyyətlərinin nüfuzunu gücləndirmək, yeni (gənc) nəslin mənəvi sağlamlığını təmin etmək üçün ardıcıl, inamlı təşkilatçılıq tədbirlərinin görülməsi.

Ümummilli lider müstəqillik dövründə müəyyən münasibətlərdə Azərbaycanın ən yeni tarixinə dair ölkə ictimaiyyətini, ziyalıları düşündürən bir sıra suallara cavab verməli olurdu ki, onlardan biri də belə idi: "Nə üçün 60- cı, 70- ci illərdə Azərbaycandan sona qədər təqib olunan bir dissident – millətçi çıxmadı? Halbuki Sovetlər Birliyinin digər respublikalarında onlar kifayət qədər olmuşdular…" Cavab olduqca yığcam (və mükəmməl) idi: "Çünki ən böyük dissident mən özüm idim…"

Heydər Əliyevin millət quruculuğu siyasətinin, fikrimizcə, üç əsas prinsipi mövcuddur:

1) millətin özünü özünə tanıtmaq;

2) milləti, xüsusilə, onun ziyalılarının, böyük şəxsiyyətlərinin timsalında hər hansı təhlükədən xilas (və müdafiə) etmək;

3) milləti dünyaya (eləcə də dünyanı millətə) tanıtmaq.

Tarixin təcrübəsi göstərir ki, millət quruculuğu prosesi o zaman uğurlu və ya məhsuldar olur ki, həmin proses tədricən, fundamental dəyərlərə əsaslanaraq getsin… Və hər cür populizmdən, tələsgənlikdən, "millət xadimlər"inin liderlik iddialarının doğurduğu münaqişələrdən, mənsəbpərəstlikdən uzaq olsun. Heydər Əliyevin təmənnasız xalq, millət sevgisi imkan verdi ki, o, mənsub olduğu xalqı, milləti ən yüksək səviyyədə irəli apara (yüksəldə!), qarşıya çıxan kifayət qədər güclü maneələri cəsarətlə aradan qaldıra bilsin. Ümummilli lider yaxın keçmişin təcrübəsindən çox yaxşı bilirdi (və bunu bir neçə dəfə qeyd etmişdi) ki, millət quruculuğunda ən təhlükəli hallardan biri liderlik konyukturudur ki, bunun acı nəticələrini Azərbaycan xalqı az görməmişdir.

Liderlik konyunkturları isə elə bir mürəkkəb sosial-psixoloji hadisədir ki, onu nəzərə almadan, əslində, müəyyən mənada, idarə etmədən millət quruculuğu prosesini uğurla aparmaq, demək olar ki, mümkün deyil. Buraya (liderlik konyunkturuna) a) ölkənin uzun əsrlər müxtəlif xanlıqlara parçalanması nəticəsində hər regionun öz liderlərini yaratmaq iddialarından (və tarixi təcrübəsindən) irəli gələn münaqişəlilik; b) mərkəzin (Moskvanın) biri digərini əvəz edən süni liderlər hazırlayıb onların şişirdilmiş (və mübahisəli) "nüfuz"u ilə ölkəni idarə etməyə çalışması; c) ardıcıl olmayan, bir növ, impulsiv "qəhrəmanlıq"ların ortaya çıxardığı təsadüfi liderlik iddialarının doğurduğu problemlər və s. daxildir ki, bunların hər biri, praktik olaraq, hamısı bir yerdə Azərbaycan xalqının təmərküzləşməsi qarşısında həmişə böyük maneələrə çevrilmiş, millət quruculuğunun lazımi (təbii) sürətlə getməsini provokasion metod və üsullarla ləngitmişdir.

Millət, yaxud dövlət quruculuğunda bir lider səviyyəsində iştirak etməyin təməl şərti, əlbəttə, ümumi (universal) xarakterə malikdir ki, bu da mənsub olduğun etnosun (xalqın) hər hansı bir sahədə (elmi, mədəni, hərbi, idarəçilik və s.) və ya bu sahələrin bir neçəsində nüfuzunu qazanmaqdan ibarətdir. Bundan sonra isə milli liderin millət, yaxud dövlət müstəqilliyi uğrunda mərkəzi hakimiyyətlə "dialoq"u başlayır ki, Azərbaycanın Heydər Əliyevə qədərki siyasi tarixində bunun, əsasən, üç təcrübəsi mövcud olmuşdu:

1) müstəqillik tələbi ilə bu və ya digər şəkildə mərkəzi hakimiyyətə qarşı çıxmaq;

2) mərkəzi hakimiyyətin bütün tələblərini yerinə yetirməklə uzun müddət hakimiyyətdə qalıb, nəticə etibarilə, ekzotik və ya dekorativ bir liderə çevrilmək;

3) milli mənafeləri gözləmək, müdafiə etmək və millətin ardıcıl tərəqqisini təmin edəcək real işlər görməklə yanaşı, mərkəzi hakimiyyətdən asılılığı tədricən minimuma endirmək.

Ən çətin (ancaq perspektivli) yol üçüncüsü idi. Və Heydər Əliyev Azərbaycanda siyasi nüfuz qazandıqdan sonra məhz bu yolla getdi… O, mərkəzi hakimiyyətə qarşı üsyan etmədi, əksinə, müxtəlif üsullarla mərkəzi hakimiyyəti məcbur etdi ki, Azərbaycanla maraqlansın, onun barəsində qərarlaşmış "Rusiyanın ucqarları" (Nəriman Nərimanov) – periferiya təsəvvüründən əl çəksin. Dünyagörüşü etibarilə milli kommunist olan Heydər Əliyev milli müstəqillik uğrunda mübarizəsində, əsas prinsip kimi, mənsub olduğu xalqın hər hansı iddia ilə özünə qapanmasını, özünü təcrid etməsini yox, ən azı, Sovetlər Birliyi miqyasında dünyaya açılmasını seçdi. O, yaxşı bilirdi ki, xalq istedadlı nümayəndələrinin timsalında dünyaya açılarsa, özünü başqa xalqlarla müqayisə etmək imkanları qazanacaqdır ki, bu da müstəqillik (və mütəşəkkillik) üçün mühüm şərtdir. Və bu, müdafiə deyil, hücum taktikası idi.

Heydər Əliyev mənsub olduğu (və artıq demək olar ki, yeganə lideri olaraq həm daxildə, həm də xaricdə məşhurlaşdığı) xalqın dünya miqyasına çıxanda o qədər də mükəmməl (və müasir) görünməyəcəyindən çəkinmədi. Və tədricən Moskvaya, ümumən Sovetlər Birliyinə konkret işlə sübut etdi ki, azərbaycanlılar zəhmətkeş, mədəni, hər sahədə uğurlar qazana biləcək istedadlı bir xalqdır. Xalqı yüksəltməyin, özünə (və dünyaya) tanıtmağın elə bir üsulu, forması qalmadı ki, Heydər Əliyev ondan tam gücü ilə istifadə etməmiş, sınaqdan keçirməmiş olsun. İqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi kimi fundamental sahələrdəki uzun illərin gerilikləri, ətaləti və hərc-mərcliyi tezliklə nəinki aradan qaldırıldı, respublikanın ictimai həyatında ela bir canlanma oldu ki, insanlar milli mənsubiyyətlərilə qürur duymağa başladılar. Və hakimiyyətə gəldiyi ilk illərdən hamıya məlum idi ki, Heydər Əliyev tarix yaradır.

İstər Azərbaycanda, istərsə də Azərbaycandan kənarda elə "azərbaycanşünaslar", yaxud "sovetoloqlar" tapılır ki, Heydər Əliyevin sovet dövrü fəaliyyətini, rəhbərlik-idarəçilik üslubunu "təntənələrə daha çox meydan açmaq"da tənqid etməyə çalışırlar. Bununla heç cür razılaşmaq olmaz… Hər şeydən əvvəl, ona görə ki, bu təntənələr, sözün böyük mənasında, xalqa ruh verirdi, onu təhsilə, intellektə, ictimai fəallığa, əməyə səfərbər edirdi.

Heydər Əliyev Azərbaycanda sovet dövlət idarəçiliyi sistemini Azərbaycan xalqının xidmətinə verməklə onu (dövlət idarəçiliyini) mərkəzi hakimiyyətin "canişinliyi"ndən çıxardı. Və bunun nəticəsidir ki, azərbaycanlılar yalnız idarə olunan yox, həm də idarə edən xalqa çevrildilər.

Sovetlər Birliyinin dağılması, Azərbaycanda milli müstəqillik (və dövlət müstəqilliyi) uğrunda hərəkatın güclənməsi illərinin sosial- siyasi mənzərəsi göstərdi ki, Heydər Əliyev Azərbaycan xalqını doğru yolla aparmış həqiqi milli lider olmuşdur. Çünki xalq müxtəlif xarakterli provokasiyaları, nəticə etibarilə, dəf edərək

1) milli müstəqillik ideallarına sadiq qalıb heç bir siyasi himayəçilik iddiasını qəbul etmədi;

2) ərazi bütövlüyünü ən kəskin (və güclü) təzyiq qarşısında belə güzəştə getmədi;

3) ona müxtəlif liderlər "təklif olunduğu" halda aldanmayıb öz həqiqi (və tarixi) liderinə sədaqət nümayiş etdirdi.

Hakimiyyətə gələn Heydər Əliyev başladığı millət quruculuğu prosesini yeni tarixi şəraitdə daha inamla davam etdirərək ən tendensiyalı və ya qısqanc tarixçinin belə etiraf etməli olduğu həqiqətən, cahanşümul işlər gördü ki, buraya aşağıdakılar xüsusilə aiddir:

a) milli mütəşəkkilliyin müstəqil dövlətçilik səviyyəsində təmin olunması;

b) dünya azərbaycanlılarının mədəni, ictimai- siyasi birliyinin gücləndirilməsi;

c) türk dünyasının etnik- mədəni birliyinin siyasi birlik səviyyəsinə yüksəldilməsi.

Bütün bunlar isə Azərbaycan xalqının dünya miqyasında özünə get-gedə daha möhkəm mövqe tutmasını təsdiq etməklə böyük milli inkişaf perspektivləri müəyyənləşdirir.

"**Azərbaycan**".-2014.-6 aprel.-N 68.-S.2.

# HEYDƏR ƏLİYEV İRSİNDƏ DEMOKRATİYA VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ

**Sevinc Fətəliyeva**
Milli Məclisin deputatı

Heydər Əliyevin nəzəri irsi Azərbaycan dövlətçiliyinin yaranması, qorunması və inkişaf etdirilməsinin əsasıdır. Bu əsərlər siyasi tarixi, azərbaycançılıq, vətəndaşlıq, dövlət quruculuğu, vətən sevgisi, vətənə məhəbbət dərsliyidir. Heydər Əliyev şəxsiyyətinin Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev Öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz Heydər Əliyevin siyasi kursu nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamış və ölkəmizi dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevirmişdir. Ulu öndər 1982-ci ildən sonra keçmiş SSRİ-ni idarə edən aparıcı simalardan biri kimi Kremldə çalışdığı dövrdə də Azərbaycanın gələcək müstəqilliyinə xidmət edən bir sıra addımlar atmış, respublikamıza qarşı ayrı-seçkilik siyasətinə qarşı çıxmış, ermənilərin məkrli torpaq ilhaqı siyasətinə qarşı barışmaz mövqe tutmuş, Qorbaçov rejimini kəskin tənqid etmişdir. Məhz bu qətiyyətli və prinsipial mövqelərinə görə 1987-ci ildə Sov. İKP MK-nın Siyasi Bürosunun üzvlüyündən uzaqlaşdırılan Ulu öndər Heydər Əliyev sonrakı mərhələdə də Azərbaycanla bağlı siyasi proseslərə biganə qalmamış, 90-cı illərin əvvəllərində Naxçıvana qayıdaraq zamanın diktəsi ilə siyasi proseslərdə fəal iştirak etmiş, Azərbaycanın dövlət müstəqilliyinə real zəmin formalaşdırmışdır. 1991-ci ilin 18 oktyabrında qüdrətli dövlət xadimi Heydər Əliyevin də əsas təşəbbüskarlarından biri kimi imza atdığı “Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktı” ilə ölkəmizin istiqlaliyyəti bütün dünyaya bəyan edilmişdir. 1991-ci ilin oktyabrından 1993-cü ilin iyununadək ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər, eyni zamanda, Azərbaycanın müstəqilliyi üçün real təhdidlərin meydana çıxması, vətəndaş qarşıdurması meyillərinin güclənməsi, hüquqi nihilizmin, xaos və anarxiya mühitinin dərinləşməsi göstərdi ki, ölkəni yaranmış acınacaqlı vəziyyətdən yalnız Heydər Əliyev kimi müdrik və uzaqgörən şəxsiyyət xilas edə bilər. Ümummilli lider 1993-cü ildə xalqın təkidli çağırışına cavab verərək hakimiyyətə qayıtdı, peşəkar siyasətçiyə xas müdrik addımları ilə Azərbaycanı vətəndaş müharibəsi və parçalanma təhlükəsindən xilas etdi, respublikamızın ərazi bütövlüyünə, suverenliyinə, dövlətçiliyinə qarşı çıxan qanunsuz silahlı qüvvələr zərərsizləşdirildi, dövlət çevrilişi cəhdlərinin qarşısı qətiyyətlə alındı, bir sözlə, ölkədə qanunçuluğun tam bərpası istiqamətində bütün addımlar atıldı. Sonrakı mərhələdə demokratik və hüquqi dövlət quruculuğu prosesinin uğurlu həyata keçirilməsi, yeni iqtisadi münasibətlər sisteminin formalaşdırılması, ən əsası, ictimai-siyasi sabitliyin qorunub saxlanılması Ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin müstəsna missiya ilə müasir Azərbaycan dövlətinin ideoloji-siyasi əsaslarını milli irs və düşüncə əsasında yaradaraq təcrübi surətdə həyata keçirmiş böyük şəxsiyyət olduğu danılmaz həqiqətdir. Ulu öndərin siyasi kimliyi xalqımızın uzun minillikləri əhatə edən dövlətçilik tarixində iz qoymuş görkəmli şəxsiyyətlərin ən müsbət cəhətlərinin ümumiləşmiş obrazıdır. O, Azərbaycanın müasir tarixini əhatə edən, zaman baxımından bir qərinəlik, mahiyyətcə isə əhəmiyyəti əsrlərlə ölçülən mərhələsində həm dünya şöhrətli uzaqgörən siyasi və dövlət xadimi, həm mahir strateq və yenilməz sərkərdə, həm iqtisadi-mədəni intibahın memarı və milli-mənəvi mədəniyyətin böyük hamisi, həm yorulmaz vətənpərvər və polad əqidəli vətəndaş, həm də görkəmli mütəfəkkir və milli ziyalılığın öndəri kimi titanik fəaliyyət göstərmişdir. Ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ildə ölkədə hakimiyyətə qayıdışından sonra Azərbaycanın hüquqi-siyasi və sosial-iqtisadi inkişafı, vətəndaş cəmiyyəti quruculuğu, cəmiyyət həyatının müxtəlif sahələrinin tərəqqisi istiqamətində aparılan islahatlar, bu islahatlar nəticəsində yalnız ölkəmizdə deyil, hətta regionumuzda baş verən dəyişikliklər, mütərəqqi yeniliklər ən yaxın tariximizin siyasi reallığıdır. Milli istiqlaliyyətimizin 23-cü ilinə qədəm qoyduğumuz bu müddətdə xalqımız məhz görkəmli dövlət xadimi Heydər Əliyevin konseptual irsinə sadiq qaldığı üçün müstəqilliyini və suverenliyini qoruyub saxlamış, uzun müddət davam edən dərin iqtisadi böhrandan çıxaraq sürətli və hərtərəfli inkişaf yoluna qədəm qoymuş, zəruri demokratik islahatlar nəticəsində Avropa ailəsinə qoşulmuş, bu gününün və gələcəyinin rifahını təmin etmişdir. Ulu öndərimizin əfsanəvi şəxsiyyətini, Onun malik olduğu bilik və qabiliyyətləri fenomenal keyfiyyətləri ilə birlikdə tam xarakterizə etmək bütöv bir tarixi dövrü təsvir etmək qədər çətin bir elmi-ictimai vəzifədir. Lakin bir həqiqət artıq tarixin daş yaddaşına qızıl hərflərlə həkk olunmuşdur: Ulu öndər Heydər Əliyevin bütünlüklə ana Vətəninə, xalqına, dövlətinə, doğma torpağına həsr

edilmiş həyat və fəaliyyətinin müasir müstəqil Azərbaycanla, onun tarixi ilə sıx bağlı və paralel olduğu danılmazdır.

Fəqət, dövlət müstəqilliyinin ilk illərində - 1991-ci ildən 1993-cü ilin iyununa qədərki mərhələdə respublikada mövcud olmuş fəlakət və sarsıntılar, ağır sosial-iqtisadi böhran, hərc-mərclik, anarxiya təsdiqlədi ki, dövlət müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. 1991-1993-cü illərdə respublikamız de-yure müstəqil sayılsa da, əslində, bu müstəqillik formal xarakter daşımış, xalqımız ədalətli və sivil dövlətdə yaşamaq arzusunu tam mənada gerçəkləşdirə bilməmişdir. Həmin illərdə Azərbaycanda hakimiyyətdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi maneəyə çevrilməklə yanaşı daxili böhranın, vətəndaş itaətsizliyinin, xaos və anarxiyanın yaranmasına rəvac vermiş, qanunçuluğun və hüquq qaydalarının təmini, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun, ən nəhayət, ictimai asayişin qorunması sahəsində əsaslı problemlər yaratmışdı.

Mürəkkəb şəraitdə xalqın səsinə səs verərək hakimiyyətə qayıdan Heydər Əliyev respublikanı milli müstəqilliyin itirilməsi təhlükəsindən qurtarmış, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil olmuşdur. Böyük strateqin rəhbərliyi altında hakimiyyət boşluğu qısa müddətdə aradan qaldırılmış, respublikanın müxtəlif bölgələrində dövlətçiliyə qəsdlər təşkil edən cinayətkar ünsürlər xalqın dəstəyi ilə zərərsizləşdirilmiş, vətəndaş sülhü və həmrəyliyinin təminatı istiqamətində ciddi addımlar atılmışdır. Bütün bunlar Azərbaycanda ardıcıl və sistemli olaraq hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinə başlamaq imkanı yaratmışdır.

Cəmiyyətin siyasi sisteminin inkişaf etdirilməsi, sosial-iqtisadi siyasət, sosial-mədəni və mənəvi inkişaf sahəsində fəaliyyətin əsas istiqamətləri Azərbaycanın müstəqilliyinin xilaskarı kimi dövlət rəhbərliyi missiyasını Öz üzərinə götürmüş Ulu öndərin daxili siyasətdə əsaslandığı sabit və uğurla reallaşdırılan taleyüklü siyasi vəzifələr idi. Ümummilli lider Heydər Əliyev Özünün öndərliyində Azərbaycanda həyata keçirilən müstəqil dövlət quruculuğu tədbirlərini belə dəyərləndirirdi: “Qısa bir müddət ərzində biz qabaqcıl Avropa təcrübəsinə əsaslanaraq çox şeyə nail ola bildik. Biz bütün çətinliklərə baxmayaraq, liberal iqtisadiyyat və sivil cəmiyyət quruculuğu yolu ilə irəlilədik. Biz insan haqlarının qorunmasını önə çəkdik, Vətənimizin və vətəndaşlarımızın totalitarizm dövrünün ağır irsindən xilas olmasına çalışdıq. Biz demokratiyanın inkişafı üçün mühüm şərtlərdən olan daxili sabitliyə nail olduq. Biz azad söz, azad mətbuat və çoxpartiyalı siyasi sistem yaratdıq. Biz milli Konstitusiya qəbul etdik. Prezident, parlament və bələdiyyə seçkiləri keçirdik, mühüm siyasi və iqtisadi islahatlar apardıq”.

Böyük öndərin milli dövlətçilik konsepsiyası müstəqil dövlətçiliyimizin bundan sonrakı inkişafının bütün mərhələlərini əhatə edəcək qədər uzaqgörən və bəşəridir.

Heydər Əliyev dövlət müstəqilliyimizi əbədi və dönməz etdi, ölkəmizə sabitlik, sülh və əmin-amanlıq, siyasi islahatlar, demokratikləşmə, iqtisadi yüksəliş, sosial inkişaf gətirdi. Atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, Azərbaycanı tənəzzül etmiş dövlətdən inkişaf edən ölkəyə çevirdi. Respublikamızın beynəlxalq əlaqələrini möhkəmləndirərək gələcək inkişafa hesablanmış neçə-neçə layihələrin, xüsusilə, uğurlu neft strategiyasının təməlini qoydu. Düşünülmüş xarici siyasət kursu ölkəmiz üçün təkcə siyasi dəstək deyil, həm də iqtisadi əməkdaşlıq və investisiya imkanları yaratdı. Azərbaycanın günbəgün beynəlxalq nüfuzu artmağa, iqtisadiyyatımızın müxtəlif sahələrinə külli miqdarda xarici sərmayələr yatırılmağa başlanıldı.

Zəngin dövlətçilik təcrübəsinə malik olan böyük strateq Heydər Əliyev isə hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirdi. Yeni Konstitusiyanın layihəsinin hazırlanması kimi cox ciddi və məsuliyyətli vəzifəni bilavasitə Öz üzərinə götürən dahi öndərimiz bununla bağlı xüsusi yaradılmış Komissiyaya şəxsən rəhbərlik etmişdir. Qəti əminliklə deyə bilərik ki, Ulu öndərimizin siyasi kursu yaradıcılıqla davam etdirilir, xüsusilə, demokratik inkişaf sahəsində bu kurs təkamül prinsipinə əsaslanır. Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra, hazırda Azərbaycanın prioritet inkişaf yoluna çevrilmiş iqtisadi modelini özünəməxsus uzaqgörənliklə əsaslandırmış, eyni zamanda, bu spesifik modelin yalnız demokratik tərəqqiyə əsaslanan möhkəm ictimai-siyasi sabitlik şəraitində davamlı nəticələr verə biləcəyini vurğulamışdır. Böyük strateq mərkəzi planlaşdırma və bölgü prinsiplərinin hakim olduğu ictimai-iqtisadi formasiyadan azad bazar iqtisadiyyatına optimal keçid modelini müdrikliklə irəli sürmüş, onun mərhələlərlə həyata keçirilməsinə çalışmışdır. Ümummilli liderimiz dəfələrlə bildirmişdir ki, Azərbaycan könüllü olaraq qoşulduğu demokratiya yolunun iqtisadi bazisə əsaslanan təkamül modelini özünün alternativsiz inkişaf strategiyası hesab edir. Eyni zamanda, Ulu öndər tətbiq olunan hər hansı demokratik yeniliklərin xalqın milli xüsusiyyətləri, dünyagörüşü, ictimai şüur səviyyəsi ilə səsləşməsini vacib sayırdı: “Demokratiya daim inkişafda olan bir prosesdir. Bu, bir mərhələdən o birisinə qədər təkmilləşmə yolu ilə getməlidir. Bu təkmilləşmə inqilabi yolla yox, təkamül yolu ilə olmalıdır. Çünki hər bir şeyə tezliklə nail olmaq çətindir”. Qısa bir vaxt ərzində Ümummilli lider Heydər Əliyev Öz müdrik rəhbərliyi ilə xalqın

ümidlərini doğrultduğunu, ölkəni bütün dünyada tanıtdığını, müstəqil Azərbaycan dövlətini beynəlxalq birliyin nüfuzlu, sözükeçən subyektlərindən birinə çevirdiyini göstərdi. Ən əsası isə Heydər Əliyev Azərbaycan xalqının illərlə can atdığı azadlıq, demokratiya yolunu gerçəkləşdirməsinə, ölkədə sosial-iqtisadi böhranı aradan qaldırmağa, doğma vətəninin bütün dünyada layiqli yerini tutmasına imkan yaratmağa qadir lider olduğunu nümayiş etdirdi. Azərbaycanda demokratik dəyərlərin bərqərar edilməsi, vətəndaşın cəmiyyətdə özünü azad hiss etməsi, hüquq və azadlıqlarını müdafiə etməsi üçün bütün zəruri addımlar atıldı və sözsüz ki, bundan sonra da atılacaqdır. Bu gün Azərbaycan hüquqi dövlət ideyasının reallaşdığı, şəxsiyyət, vətəndaş və cəmiyyət münasibətlərinin demokratik prinsiplərə əsaslandığı, müxtəlif milli-dini sivilizasiyaların qovuşduğu tolerant ölkə kimi tanınır. Hər ötən illə müqayisədə ölkəmizdə demokratik dəyişikliklərin həyatımıza tətbiq olunma tempi yüksələn xətt üzrə inkişaf edir. Cəmiyyətə təsir imkanı baxımından ən üstün imkanlara malik vətəndaş cəmiyyəti inistitutlarından biri də kütləvi informasiya vasitələridir. Məhz, bu baxımdan, adıçəkilən sektorun inkişaf səviyyəsi dövlətdəki ümumi yüksəliş səviyyəsinin, demokratik durumun göstəricisi sayılır. Azərbaycanda söz və məlumat azadlığının, fikir plüralizminin həqiqi mənada bərpa olunması, onun müdafiəsinin dövlət siyasətinin tərkib hissəsi kimi gündəmə vəsiqə alması Ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyevin təsdiq etdiyi 1998-ci il 22 iyun tarixli "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" vətəndaşların Azərbaycan Konstitusiyasında əksini tapmış söz, mətbuat, fikir azadlıqlarının təminatına əlverişli imkanlar açdı. Həmin Dövlət Proqramından az sonra Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 6 avqust tarixində imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman kütləvi informasiya vasitələrinin sərbəst inkişafı, onların cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsində mühüm addım oldu. Fərman, eləcə də, kütləvi informasiya vasitələri əməkdaşlarının beynəlxalq mərkəzlərin tədqiqat və təhsil proqramlarında, beynəlxalq konfrans, seminar və digər tədbirlərdə iştirakı üçün geniş şərait yaradılmasını nəzərdə tuturdu. Həmin Fərmanla 1966-ci il 27 oktyabr tarixdə yaradılan Azərbaycanın bütün informasiya vasitələri üzərində senzura fəaliyyəti həyata keçirən Nazirlər Kabineti yanında Mətbuatda Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ("Qlavlit") ləğv olundu. Fərmanla, həmçinin, Azərbaycan Respublikası Prezidentinin hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli fərmanı, eləcə də, bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli Sərəncamı qüvvədən düşmüş hesab olundu. Bu qətiyyətli addım 1875 -ci ildə "Əkinçi" qəzeti ilə əsası qoyulan Azərbaycan milli mətbuatının ilk dəfə senzuradan tamamilə azad edilməsi demək idi. Mətbuat üzərində dövlət senzurasının ləğvi barədə Fərman kütləvi informasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verməklə yanaşı, cəmiyyət həyatında onların səmərəli rolunun artırılması sahəsində geniş Dövlət Proqramının əsas istiqamətlərini müəyyənləşdirdi. Ulu öndər Heydər Əliyevin müstəqil respublikamıza rəhbərliyi illərində həyata keçirilmiş çoxşaxəli islahatların nəticəsi olaraq bu gün Azərbaycanda söz və mətbuat azadlığı sahəsindəki mövcud vəziyyət qabaqcıl demokratik ölkələrlə müqayisə edilə bilər. Vətəndaş cəmiyyətinin meyarlarından biridə ölkədə QHT-nin təkmilləşdirilməsi və onların inkişafına şəraitin yaradılması ilə bağlıdır. Ulu öndər Heydər Əliyevin vətəndaş cəmiyyətinin inkişafı üçün həyata keçirdiklərini saymaqla bitməz. Vətəndaş cəmiyyəti institutlarının hüquqi bazasının yaradılmasında, bilik və bacarıqlarının artırılmasında Ulu öndər Heydər Əliyevin xidmətləri olduqca böyükdür. Əslində, bütün bunları O yaradarkən indiki QHT-lər üçün miras qoydu. Sözün həqiqi mənasında bu gün Azərbaycanda formalaşan QHT sektoru Ulu öndər Heydər Əliyevin mənəvi mirasıdır. Bu, Ulu öndərin daha bir tarixi xidməti idi. Yerli özünüidarəetmə institutunun yaradılması da məhz Heydər Əliyevin adı və titanik siyasi fəaliyyəti ilə əlaqədardır.

Ölkəmizdə insan və vətəndaş hüquqlarının qorunması sahəsi də Ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər tərəfindən həyata keçirilən hüquqi islahatlar dövlətçiliyimizin möhkəmləndirilməsinə, sabitliyin yaranmasına və bununla da, cəmiyyətimizin gələcək inkişafında insan hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş yeni hüquq sisteminin formalaşmasına real şərait yaratmışdır. Ulu öndərimizin 1993-cü ildən tətbiqinə moratorium qoyduğu ölüm hökmü 1998-ci ildə tamamilə ləğv edilmiş, bununla da, Azərbaycan Respublikasının adı Şərqdə ölüm hökmünü ləğv edən ilk ölkə kimi tarixə düşmüşdür. Bu, ölkəmizin hələ Avropa Şurasına üzv qəbul olunmadığı dövrlərdə insan hüquqları sahəsində atılan ən mütərəqqi addımlardan biri idi. Azərbaycan BMT-nin İnsan Hüquqları Ümumi Bəyannaməsinə və digər beynəlxalq konvensiyalara da qoşulmaqla insan hüquqları sahəsində beynəlxalq miqyasda təsbit olunmuş prinsiplərə sadiqliyini nümayiş etdirmişdir. 1998-ci il fevralın 22-də Ümummilli lider Heydər Əliyev "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman imzalamış, bu mühüm sənəddə insan hüquqlarının təminatı sahəsində həyata keçirilən tədbirlərin mahiyyəti və konsepsiyası dəqiq müəyyənləşdirilmişdir. İnsan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə, Ulu öndər Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli Sərəncamına əsasən, "İnsan

hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuşdur. Ötən müddət ərzində Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər uğurlu həllini tapmış, ölkəmizin beynəlxalq təşkilatlarla əməkdaşlığı daha da genişlənmiş, respublikamız bir sıra beynəlxalq müqavilələrə qoşulmuş, yeni məhkəmə sistemi formalaşmış, konstitusion nəzarət mexanizmi olan Konstitusiya Məhkəməsi yaradılmış, 2001-ci il dekabr ayının 28-də "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu qəbul edilmiş, ölkəmiz üçün yeni bir qurum olan Müvəkkil təsisatı yaradılmış, hüquq-mühafizə orqanlarının fəaliyyəti təkmilləşdirilmişdir.

Ölkəmizin sistemli şəkildə dünya birliyinə inteqrasiya olunmasında ikitərəfli və çoxtərəfli siyasi münasibətlərin genişlənməsi istiqamətində atılan addımlar mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verdi. "Əsrin müqaviləsi" və sonrakı illərdə imzalanmış çoxsaylı neft müqavilələrin Azərbaycanın dünya birliyinə inteqrasiyasını sürətləndirdidi. Əsası Ümummilli lider tərəfindən qoyulmuş və bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurlu həyata keçirilən xarici siyasət strategiyası dövlətlərarası regional və beynəlxalq əlaqələrə daha yaxından qatılaraq, Şərq və Qərb dəyərlərinin sintezindən yaranmış cəhətləri özündə də əxz edərək, dünya birliyinə sıx inteqrasiya olunmaq xəttini seçmişdir. Hazırda regionda və dünyada baş verən əsas iqtisadi siyasi və mədəni proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Azərbaycan artıq Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Bu istiqamətdə əsas diqqət Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpa edilməsi, regionda sabitliyin və təhlükəsizliyin gücləndirilməsi, Xəzər dənizi hövzəsinin demilitarizasiyası, Avroatlantik strukturlara inteqrasiya və s. məsələlərə yönəldilmişdir. Hazırda mühüm geosiyasi məkan kimi Azərbaycan regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir.

Müasir dövrdə demokratiyanın inkişafı, qanunçuluğun təminatı, insan hüquq və azadlıqlarının qorunması həm də sosial rifah, iqtisadi tərəqqi amilləri ilə şərtlənir. Respublikamızın iqtisadi imkanları genişləndikcə, Azərbaycan ümumbəşəri dəyərlərə əsaslanaraq mütərəqqi yolla irəliləməklə, insan hüquq və azadlıqlarının təminatı, demokratikləşmə sahəsində yeni-yeni uğurlara imza atır. Dövlət başçısı Azərbaycanın sosial-iqtisadi inkişafına paralel gedən demokratikləşmə proseslərini bir-birindən təcrid olunmuş şəkildə götürmədən hər iki xətti Azərbaycanın gələcək yüksəlişinin vahid istinad nöqtəsi kimi əsaslandırır. Ulu öndər Heydər Əliyevin xaos və anarxiyadan, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib dinamik islahatlar yoluna çıxardığı Azərbaycan hazırda Onun layiqli davamçısı - Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilmişdir. Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davamını aydın görən xalqımız bu siyasəti yüksək dəyərləndirir və Prezidentin ətrafında daha da sıx birləşməklə, Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri sırasında layiqli yerini tutmasına nail olmağı Ulu öndərin ruhu qarşısında mənəvi borcu sayır. Azərbaycan Prezidenti cənab İlham Əliyev Ulu öndərin siyasi-ideoloji kursunu layiqincə davam etdirməklə, xalqımızın və dövlətçiliyimizin bu kursun mahiyyətindən doğan milli maraqlarını beynəlxalq miqyasda təmin etməklə, Heydər Əliyevin ideyalarını yaşadır, inkişaf etdirir, ölkəmizi aydın sabahlara aparır.

**"Yeni Azərbaycan".**-2014.-18aprel.-№ 66.-S.4.

# AZƏRBAYCAN TARİXİNDƏ HEYDƏR ƏLİYEV FENOMENİ

**Nurlana Əliyeva,**
YAP Qadınlar Şurasının sədri,
filologiya elmləri doktoru, professor

Azərbaycan tarixinin son yarım əsrlik dövrü dünya miqyaslı dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin adı və şəxsiyyəti, dövlətçilik təfəkkürü və yorulmaz fəaliyyəti ilə sıx bağlıdır. Heydər Əliyev öz xalqının tarixi taleyində, onun mənəvi, siyasi və ictimai həyatında misilsiz xidmətlər göstərən dahi bir şəxsiyyətdir. Böyük rəhbərin hakimiyyətdə olduğu dövr Azərbaycan elminin, təhsilinin, səhiyyə və mədəniyyətinin, xalq təsərrüfatının, iqtisadiyyatının, ümumiyyətlə, mənəviyyatının sürətli inkişafı ilə yadda qalmışdır. Heydər Əliyev hələ ötən əsrin 70-ci illərində Azərbaycanda sağlam millətçilik ideyalarının yayılmasında, xalq arasında milli mənlik və milli şüur hissinin tərbiyə olunmasında nəhəng işlər görmüşdür. Milli-mənəvi dəyərlərimizin qorunması, vətəndaşların sosial həyat tərzinin yaxşılaşdırılması, demokratik inkişafın yüksəlişi, təhsilin səviyyəsinin möhkəmləndirilməsi, dünya azərbaycanlılarının monolit bir qüvvə kimi təşkilatlanması, qadınlarımızın və gənclərimizin, dövlətçiliyimizin tərəqqisi prosesinə cəlb edilməsi Heydər Əliyev strategiyasının uğurlu təzahürü kimi qeyd olunmalıdır.

Azərbaycan xalqı bu illər ərzində çox mürəkkəb problemlərlə üzləşmiş və hər dəfə də tarixin çətin imtahanlarından uğurla çıxmışdır. İndi millətin tərəqqisi üçün təfəkkür azadlığı, yüksək mədəniyyət, ağıl, qanunun aliliyi, düşünülmüş, dərk olunmuş intizam, məsuliyyət hissi əsas amillərdəndir. Bu gün bütün dünya təkzibedilməz bir həqiqəti təsdiqləyir: Heydər Əliyev nəinki xalqımızın, XX əsrin yetirdiyi ən böyük siyasi xadimdir. Heydər Əliyev xalqın canlı tarixi, onun yaradıcısıdır. Əgər insan yalnız özü üçün çalışırsa, o, bəlkə də məşhur alim, müdrik adam, gözəl şair, bəstəkar, sənətkar ola bilər. Amma heç vaxt həqiqi, kamil və böyük insan ola bilməz. Heydər Əliyev ömrünün yarım əsrdən çoxunu öz xalqına xidmət etmişdir və dəfələrlə demişdir ki, qalan ömrünü də xalqa qurban verməyə hazırdır. Bu baxımdan, bir həqiqət unudulmamalıdır: millət özünün ağıllı, zəkalı, çevik və müdrik şəxsiyyətinə daim arxalanmış və onun ardınca getmişdir. Biz bundan sonra da Vətən qayəsini, millət duyğusunu əsas tutub fəaliyyətimizi Heydər Əliyev ideyaları istiqamətində qurmalı, çalışmalıyıq. İndi elə bir dövr gəlib çatmışdır ki, gərək hamı millətin taleyi və onun xoş gələcəyi uğrunda mübarizə aparsın. Elə bilirəm ki, tariximiz qarşısında məsuliyyət hissini dərk edən hər kəs bu ideyaya şərik olacaqdır.

Ötən əsrin 90-cı illərinin əvvəllərində cəmiyyətin həyatının bütün sferalarını bürümüş anarxiya, siyasi xaos və sosial destabilizasiya ölkənin dinamik inkişafını təmin edə bilən ümumi strategiyanın mövcud olmadığını nümayiş etdirirdi. Bu, hər şeydən əvvəl xalqın kütləvi etimadına güvənən hakimiyyətin yoxluğunun nəticəsi idi. Yalnız 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra ictimai münasibətlər sistemində normal vəziyyətin yaradılması, iqtisadi sferada nəzərəçarpacaq uğurların əldə olunması, dövlətin və bütövlükdə xalqın təhlükəsizliyini təmin edən idarəetmə mexanizminin qurulmasına nail olundu. Heç şübhəsiz ki, bu gün yaşadığımız ölkədə Heydər Əliyev siyasi kursunun dövlətçiliyin inkişaf konsepsiyası kimi qəbul edilməsinin səbəblərini də elə burada axtarmaq lazımdır.

Azərbaycan xalqının tarixin sınaqlarından çıxmış təcrübəsi onun Heydər Əliyevə adi bir siyasi lider kimi deyil, həm də milli dövlətçilik ideologiyasının şəksiz və şəriksiz müəllifi kimi baxdığını təsdiqləyir. Hansı siyasi şəraitdə və hansı tarixi mərhələdə yaşamasmdan asılı olmayaraq Azərbaycan xalqı bu siyasi kursun həyati əhəmiyyət daşıyan prinsiplərinə həmişə sadiqdir, çünki bu, onun bir millət olaraq inkişafını təmin etməyə qadir konseptual ideologiyanı əhatə edir. Heydər Əliyev siyasi kursundan kənarda Azərbaycan dövlətçiliyi yoxdur və ola da bilməz. Çünki Heydər Əliyevin siyasəti elə dövlətçiliyin özü deməkdir və bunu çox da uzaq olmayan keçmişimizin təcrübəsi sübut etmişdir. Heydər Əliyev Azərbaycanda hamının eyni dərəcədə inandığı bir ideologiyanın, bütün vətəndaşların hər növ hüquqlarını qoruya bilən dövlətin əsasını qoydu, yalnız hüququn aliliyinə əsaslanan idarəetmə sistemi yaratdı. Lakin bunların hər birini həyata keçirmək üçün ictimai-siyasi sabitliyin bərqərar edilməsinə nail olmaq lazım idi. Ümummilli Liderimizin gərgin səyləri bu sabitliyin yaradılmasına və Azərbaycanda normal siyasi münasibətlər sisteminin formalaşmasına gətirib çıxardı ki, bu da ümumilikdə dövlətin siyasi əsaslarının möhkəmləndirilməsinə səbəb oldu.

Heydər Əliyevin tarixi xidmətlərinin həqiqi mahiyyətini təsvir etmək çox çətin məsələdir. Təkcə ona görə yox ki, bu böyük şəxsiyyət Azərbaycan dövlətçiliyinin banisi olmuşdur. Həm də ona görə ki, Onun siyasi fəaliyyətinin hər bir məqamı tarixi uğurlarla zəngindir və onların hamısını bir yerdə sistemləşdirilmiş şəkildə təhlil etmək, hansı texnologiyalar əsasında həyata keçirildiyini aydınlaşdırmaq, elmi-ideoloji əsaslarının

müəyyənləşdirilməsinə nail olmaq üçün Heydər Əliyevin bir siyasi fenomen kimi şəxsi keyfiyyətlərini araşdırmaq zərurəti ortaya çıxır. Bu isə etiraf edək ki, asan deyildir. Heydər Əliyev kimi böyük şəxsiyyətlərin fəaliyyətinin araşdırılması illər, bəlkə də onilliklər tələb edir, amma əlbəttə ki, hamının eyni dərəcədə xəbərdar olduğu çox adi bir həqiqət var: Heydər Əliyev Azərbaycan xalqı üçün tarixin bəxş etdiyi şansdır və bu xalq Onun nə dərəcədə qiymətli olduğunun çox gözəl bilir. Mən, sadəcə olaraq, Heydər Əliyevin fəaliyyətinin yalnız bir neçə istiqaməti barədə faktları nəzərə çatdıracağam və heç şübhəsiz ki, bu faktların hər biri Onun şəxsi keyfiyyətlərinin bütün çalarlarını özündə ehtiva edir.

Möhtərəm Heydər Əliyev Azərbaycanda rəhbərlikdə olduğu bütün dövrlərdə qadınların vəziyyətinin yaxşılaşdırılması sahəsində yetkin dövlət siyasətinin həyata keçirilməsini sosial-iqtisadi siyasətin əsas aparıcı istiqamətlərindən biri hesab etmiş, bu sahəyə xüsusi diqqət və qayğı göstərmişdir. "Qadın dünyadır, qadın həyatdır, insanlığı yaşadan müqəddəs varlıqdır. Qadın hərəkatı böyük qüvvədir" deyən Ümummilli Liderimiz həmişə Azərbaycan qadınının mərdliyini, dözümünü, səmimiyyətini, paklıq və sədaqətini, vəfa və ismətini ən ali dəyər kimi qiymətləndirmişdir. İctimai gerçəkliyin, əxlaqi problemlərin həllində, yeni həyat tərzinin mənəvi axtarışlarında, ideya mübarizələrində qadınlarımız öz əzmkarlığı, fəal müasirliyi, biliyi, bacarığı, sərt, möhkəm əqidə saflığı ilə həmişə ön cərgələrdə olub. Təbii ki, qadın hərəkatının önündə ilk növbədə ziyalı qadınlarımız gedir. Çünki ziyalının xidmət yeri onun vətənidir. Ziyalı elin ən ağır günlərində həmişə ön cərgələrdə gedir, xalqına arxa olub, dayaq durur. Ziyalılıq mənəvi zənginlik, möhkəmlik, yenilməzlik, insan ləyaqətinin ömürdən də üstün tutulmasıdır. Ziyalıların əsas təbəqəsini isə müəllimlər, alimlər, təhsil işçiləri təşkil edirlər. Heydər Əliyevin bu illər ərzində ziyalılığa, təhsilə, elmə, mədəniyyətə, bütövlükdə Azərbaycan müəllimlərinə töhfələri olduqca çoxdur. Milli tariximizin ən yaddaqalan məqamları, maarifimizin intibahı, təhsilimizin uğurları böyük şəxsiyyət Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır.

Heydər Əliyevin ömür boyu hazırladığı və praktik olaraq həyata keçirdiyi müstəqil Azərbaycan dövlətinin təhsil siyasəti həm də pedaqoji bir nəzəriyyədir, milli təhsilimizin ideya əsasıdır. Bu nəzəriyyəni dərindən öyrənmək və öyrətmək həm də dövlət əhəmiyyətli bir işdir. Təhsil və dövlətçilik qoşa qanaddır, ayrılmazdır. Onların vəhdəti xalqın mənəvi, siyasi və iqtisadi qüdrətini daim artırır, onu tərəqqiyə aparır. Bu mənada böyük Öndər Heydər Əliyevin milli təhsilin inkişafına göstərdiyi qayğı və diqqət özünəməxsusluğu ilə seçilirdi. Onun hakimiyyətə gəldiyi vaxtdan başlanan tarixi mərhələ bugünkü Azərbaycan təhsilinin və elminin inkişaf dövrü kimi qavranılır. Sivilizasiyaların tarixi təcrübəsi göstərir ki, elmə, təhsilə yüksək qiymət verən dövlət başçıları bununla, nəinki öz ölkələrinin iqtisadi və mədəni yüksəlişini təmin edir, həm də dünya təhsilinə böyük töhfələr vermiş olurlar. Heydər Əliyev epoxasında milli təhsilin üstün inkişafı, ölkənin intellektual potensialının zənginləşdirilməsi, təhsil quruculuğu sahəsində aparılan islahatlar milli tərəqqimizin əsas amili olmuşdur. Böyük rəhbər hələ SSRİ kimi superdövlətin hökmranlığı dövründə - ötən əsrin 80-cı illərində təhsil islahatlarına rəhbərlik etmiş və bütün hallarda Azərbaycan xalqının uğurlu gələcəyini düşünmüş, bu yolda nə lazımdırsa hamısnı, hətta mümkün olmayanları belə həyata keçirə bilmişdir.

Keçən əsrin 70-80-cı illərini haqlı olaraq Azərbaycan təhsilinin intibah dövrü adlandırırlar. Heydər Əliyev hələ o zaman özünəməxsus müdriklik və uzaqgörənliklə dərk edirdi ki, elmi və təhsili inkişaf etməyən millətin ümumi tərəqqisini təmin etmək mümkün deyildir. Ona görə də bu müdrik şəxsiyyətin respublika rəhbərliyinə gəlməsi ilə elmin və təhsilin inkişafı prioritet vəzifə kimi müəyyənləşdirildi. 1970-1980-ci illərdə Azərbaycanda yeni ali məktəblər şəbəkəsi yaradıldı, çoxlu yeni ixtisaslar, kafedralar açıldı, 800-dən çox yeni orta məktəb binası tikilib istifadəyə verildi. Həmin illərdə nə qədər müəllimlərimizin xidmətləri yüksək qiymətləndirildi, onlar orden və medallara layiq görüldülər. 800-dən artıq təhsil işçisi əməkdar müəllim, üç nəfər Sosialist Əməyi Qəhrəınanı adını aldı. Totalitar rejimin tüğyan etdiyi bir dövrdə bu işlərin necə çətinliklə görüldüyünü indi hamı yaxşı dərk etməlidir.

Heydər Əliyevin quruculuq fəaliyyətində gənc nəslin Vətənə, millətə, torpağa məhəbbət ruhunda tərbiyəsi, azərbaycançılıq ideologiyasının təməl prinsiplərinin müəyyənləşdirilməsi mühüm yer tutur. Ümummilli Liderin azərbaycançılıq təliminin birinci və aparıcı prinsipi öz milli mənsubiyyətini qoruyub saxlamaq kimi müəyyənləşdirilmişdir. Bu son dərəcə çoxtərəfli və azərbaycançılığın mahiyyətini ifadə edən prinsipdir. Heydər Əliyev bütün çıxışlarında göstərirdi ki, "hər bir milli və dövlət ideologiyasının məqsədi dövlətçilik anlayışı ilə bağlıdır, ümummilli baxımdan dövlətçilik xalqı daxili və xarici ədalətsizliklərdən, təzyiqlərdən, istilalardan qorunmaq, milli dövlətin sərhədləri daxilində vətəndaşlar üçün siyasi və iqtisadi baxımdan sabit həyat imkanları yaratmaqdır."

Milli ideologiya dövlətçiliyin ümumxalq dəyərlərini və mənsubiyyətini ifadə edir, insanları öz dövlətinə bağlayır. Milli dövlətin əhəmiyyətini isə Qarabağ müharibəsində itirdiyimiz torpaqların taleyi yaxşı açıqlayır. Torpaqlar nə üçün getdi? Çünki 1988-1993-cü illərdə dövlətçiliyimiz zəifləmişdi və bunun nəticəsində dövlət xalqı qorumaq, onun siyasi və iqtisadi sərhədlərini müdafiə etmək kimi əsas funksiyasını icra edə bilmirdi. Milli

ideologiya, o cümlədən azərbaycançılıq ilk növbədə xalqı dövlət, onun maraqları və dəyərləri ətrafında birləşdirən bir hadisədir. Bu baxımdan, Heydər Əliyev bütün dünya azərbaycanlılarını vahid ideologiya ətrafında birləşdirdi. Ümummilli Lider dünya azərbaycanlılarının birinci qurultayında azərbaycançılığın ikinci aparıcı prinsipi kimi milli-mənəvi dəyərlərin qorunub saxlanılmasını müəyyənləşdirmişdir. Bu prinsip hər bir azərbaycanlıya aiddir.

Heydər Əliyev mənəvi dəyərlər içərisində dilimizin qorunub saxlanılmasına xüsusi əhəmiyyət vermişdir, Azərbaycan dilinin dövlət statusu haqqında dəyərli fərman və sərəncamlar imzalamışdır. Dövlət dili haqqında qanun qüvvəyə minmişdir. Ümummilli Liderimizin müəyyənləşdirdiyi üçüncü mühüm prinsip isə milli- mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə inteqrasiyasına nail olmaqdır. Bu prinsip Azərbaycan xalqının bütün türk və müsəlman dünyasında xüsusi tarixi mövqeyini və missiyasını ifadə edən bir müddəadır. Bu mühüm müddəa isə xalqımızın mənəvi-tarixi təcrübəsindən irəli gəlir. Azərbaycan Qərblə Şərqin sərhədində yerləşdiyindən bu iki sivilizasiyasının vəhdətini özündə təcəssüm etdirən tarixi mədəniyyətə malikdir. Böyük rəhbər Heydər Əliyev azərbaycançılıq ideologiyasının həyata keçirilməsində bu vacib amilləri diqqət mərkəzində saxlamağın zəruri olduğunu dəfələrlə göstərirdi. Millətin gələcəyinin memarı olan Dahi Liderin şəxsiyyət kimi böyüklüyü ondan ibarət idi ki, hakimiyyətə gəldikdən qısa vaxt keçməmiş O, Azərbaycanın milli kadr siyasətini həyata keçirdi. Bunun üçün qüdrət, ardıcıllıq, öz mövqeyini müdafiə və qəbul etdirmək bacarığı, insanlara təsir etmək, onları inandıra bilmək istedadı lazım idi.

Bu illərdə Ümummilli Liderin təşəbbüsü ilə 15 mindən yuxarı azərbaycanlı gənc SSRİ-nin ən nüfuzlu və məşhur ali məktəblərində o dövr üçün nadir ixtisaslar üzrə təhsil almağa göndərilirdi. 12 il ərzində Azərbaycan Sovet Respublikasının əvvəlki iqtisadi potensialına az qala bərabər olan sənaye potensialı yaradıldı. Kondisionerlər zavodu, nəhəng neft emalı kompleksləri, Soyuducular zavodu və s. açıldı, neçə-neçə müəssisə tikildi. Ölkə rəhbərinin tribunalardan verdiyi raportlar, əslində, xalqımıza, onun gələcəyinə ünvanlanmışdır. Amma qəlbi qara, naşı adamlar bu işlərin tarixi mənasını anlamır, xalqın taleyində gedən hərəkatın istiqamətini duymurdular. Tarix isə hər şeyi öz yerinə qoydu. İkinci dəfə 1993-cü ilin yayında böyük rəhbərin hakimiyyətə gəlişi digər sahələrdə olduğu kimi, milli təhsil sisteminin də bərpası və yeni şəraitin tələblərinə uyğun olaraq daha da inkişaf etdirilməsi üçün əlverişli siyasi, iqtisadi, mədəni, hüquqi, mənəvi, əxlaqi mühit yaratdı. Bu gün də respublikada aparılan irimiqyaslı layihələrin müəllifi Heydər Əliyevdir.

XX əsrin sonu Azərbaycanda müstəqil dövlətçilik ənənələrinin formalaşması mərhələsidir. Bu mərhələnin şəriksiz müəllifı alternativi olmayan unudulmaz şəxsiyyət Heydər Əliyevdir. O, yaşadığımız ölkədə və onun hüdudlarından kənarda yalnız dövlət başçısı kimi deyil, həm də dövlət qurucusu, banisi kimi qəbul olunurdu. Azərbaycan cəmiyyətində Cənab Heydər Əliyevin ictimailəşmiş obrazı Ümummilli Lider anlayışını özündə təcəssüm edirdi. Ötən uzun illərdə böyük Öndər Heydər Əliyevin mühüm nailiyyətlərə imza atması Azərbaycanın siyasi tarixində Onun əvəzolunmaz bir şəxsiyyət olaraq qalmasını təmin etmişdir. Öz xalqının gələcəyi uğrunda çalışarkən Heydər Əliyev heç vaxt kimdənsə mükafat ummamışdır, təltif gözləməmişdir, çünki bu, Onun xarakterinə yad idi. Azərbaycan xalqı birmənalı şəkildə Heydər Əliyev siyasi kursundan kənarda dövlətçilik anlayışının mövcud rol oynadığını özü üçün müəyyənləşdirmişdir. Bu, həm də o deməkdir ki, hakimiyyəti kimin idarə etməsindən asılı olmayaraq həmin siyasi kursun davam etdirilməsi tarixi zəruridir. Bu mənada Cənab İlham Əliyevin Prezident vəzifəsinə seçilməsinin xalqın bütün sosial sferasının təqdiredici münasibəti ilə qarşılanması tamamilə təbiidir. Yaşadığımız məmləkətdə Heydər Əliyev təkcə Ümummilli Siyasi Lider kimi deyil, həm də xalqın etimadını qazanmış böyük bir strateji konsepsiyanın müəllifı kimi qavranılır. Bu baxımdan, Onun siyasi kursunun davam etdirilməsinin vacibliyi yalnız tarixi və müasir siyasi reallıqlara əsaslanmır, həm də mənəvi-ideoloji amillərin təsirinin gerçək təzahürü kimi meydana çıxır.

"Şübhəsiz ki, bu böyük həqiqəti bütün parametrləri ilə dərk etmiş cəmiyyət Heydər Əliyevin davamçısı kim ola bilər" sualına cavab axtarmağa məhkum idi və İlham Əliyev faktoru bu axtarışların ən optimal cavab variantı kimi qiymətləndirilir. Bu, heç də təsadüfı deyil, çünki ictimai şüur heç vaxt təsadüflər üzərində dayanmır, real hadisələrə və faktlara əsaslanaraq çıxış edir. Cənab İlham Əliyev Azərbaycan siyasətində qazandığı uğurlar, müasir bir siyasətçi kimi özünü təsdiq etməsi, siyasi proseslərin inkişafında təsiredici gücə malik olması, milli maraqların gerçəkləşdirilməsinə istiqamətlənmiş prinsipial davranışları, eləcə də mənəvi-əxlaqi məziyyətləri Heydər Əliyev müdrikliyinin və uzaqgörənliyinin xalqın istəklərini təmin edən faktor oldu. Görünür, elə buna görə də o, Azərbaycan xalqının böyük əksəriyyəti tərəfindən dövlətçiliyimizin yeganə inkişaf modeli kimi qiymətləndirilən Heydər Əliyev siyasi kursunun alternativsiz varisi olaraq qəbul edilir. "Mən bu yüksək kürsüdən əziz Prezidentimiz Cənab Heydər Əliyevə müraciət edərək deyirəm: əziz Prezident, əsərin olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik." Bu sözlər Azərbaycanın yeni Prezidentinin andiçmə mərasimindəki çıxışından götürülüb və Onun siyasi platformasının əsaslarını müəyyənləşdirən tezis kimi qəbul oluna bilər. İlham Əliyev

bu tezisləri həyata keçirməyə qadir siyasətçidir və biz çox da uzaq olmayan gələcəkdə bunun əyani şahidlərinə çevriləcəyik.

İndi Azərbaycan vətəndaşı öz sabahından narahat olmaya bilər. Heydər Əliyevin ölkəyə sabitlik və rifah gətirən siyasi kursu hələ uzun illər davam edəcəkdir. Bu, həm də Prezident İlham Əliyevin siyasi keyfiyyətlərinə, xarizmasına və perspektivinə inamdan, ümumxalq etimadından irəli gəlir. Qarşıda duran dövr tarixi-siyasi məzmununa görə əvvəlkilərdən xeyli dərəcədə fərqlənir və bu da təsadüfi deyil. Çünki artıq Azərbaycan tamamilə yeni bir mərhələyə qədəm qoymuşdur: dövlət quruculuğu prosesi uğurla başa çatdırılıb, iqtisadi sahədə kifayət qədər böyük nailiyyətlər var, demokratikləşmənin müsbət nəticələri göz qabağındadır və bütün bunlarla bərabər, beynəlxalq münasibətlər sistemində respublikamızın mövqeləri nəzərəçarpacaq səviyyədə möhkəmlənmişdir. Bu baxımdan, indiki müvəffəqiyyətlərin davam etdirilməsi, əslində cəmiyyətin özünün daxili siyasi və mənəvi tələbatlar sisteminin diktəsi ilə ortaya çıxan mühüm zərurətdir.

Bu gün dövlətçiliyimizin Heydər Əliyev mərhələsi uğurla davam etməkdədir. Ümummilli Liderin ideyaları Azərbaycanın inkişafının hələ bir neçə onillikləri üçün nəzərdə tutulur və böyük rəhbərin fundamental elmi prinsiplərə əsaslanan strategiyası ölkəmizin yüksəlişinə ən etibarlı təminatdır. Heydər Əliyev Azərbaycanda müstəqil dövlətimizin ənənələrinin yaradıcı və milli dövlətçilik təfəkkürünün formalaşmasında tarixi rol oynayan böyük şəxsiyyətdir. Azərbaycan dövlətinin mövcudluğu Onun adı ilə bağlıdır, çünki Heydər Əliyev siyasi kursundan kənarda bu dövlətin varlığı barədə danışmaq qeyri-mümkündür. Heydər Əliyevin siyasi kursu bizim sabahımızın, gələcəyimizin, inkişafımızın, tərəqqimizin qarantıdır.

**“Səs”.-**2014.-23 aprel.-№ 72.-S.15.

## HEYDƏR ƏLİYEVİN İNKİŞAF STRATEGİYASI - MÜSTƏQİLLİYİN TƏNTƏNƏSİNƏ APARAN YOL

**Azərbaycanın iqtisadi və siyasi modernləşməsi təcrübəsinin unikallığı ondadır ki, qonşularından fərqli olaraq, Azərbaycan ötən 20 ildə sabit bir model yarada bildi və bunun sayəsində, tarix üçün çox qısa bu zaman hüdudlarında, sənayenin inkişaf tempinə, gəlirlərin həcminə və həyat səviyyəsinə görə lider dövlətlər sırasına çıxdı.**

Unutmaq olmaz ki, sovet imperiyasından qopan Azərbaycanın müstəqil dövlətçiliyinin qurulması siyasi kataklizmlərin dərinləşdiyi, separatizmin kəskinləşdiyi, o cümlədən ölkənin öz ərazi bütövlüyünü itirmək təhlükəsi ilə üz-üzə qaldığı bir şəraitdə gedirdi. Hadisələrin cərəyan etdiyi belə bir vaxtda siyasi şəraitin sabitləşməsinə tələbat, Azərbaycanın iqtisadi modernləşməsi və milli dövlətçiliyin qurulması kimi vəzifələr güclü icra hakimiyyəti vertikalının və dövlətin simvolu olan prezidentin rolunun gücləndirilməsini tələb edirdi.

1993-cü il oktyabrın 3-də prezident seçkilərində böyük səs çoxluğu ilə qalib gələn ümummilli lider Heydər Əliyev Ermənistan-Azərbaycan cəbhəsində atəşkəsin təmin olunması, ölkə daxilində siyasi vəziyyətin sabitləşməsi üçün qəti tədbirlər gördü, iqtisadi sahədə antiböhran islahatlarını həyata keçirərək ölkənin hazırkı inkişaf modelinin əsasını qoydu. Amma qarşıda çox böyük vəzifələr və vacib işlər dururdu.

Siyasi sahədə vəzifələr bəlli olsa da, iqtisadiyyatı ayağa qaldırmadan müstəqil milli dövlətçilik arzularını gerçəkləşdirməyi mümkün hesab etmək əsla düzgün olmazdı. İqtisadiyyatda uğur qazanmaq üçünsə köhnə planlı təsərrüfat mexanizmindən xilas olub yeni, bazar iqtisadiyyatına keçmək lazım idi. Bunun əsas şərtləri isə şəxsi mülkiyyətin toxunulmazlığını təmin etmək, hakimiyyətin və mülkiyyətin bölgüsünü həyata keçirmək, vahid mülkiyyətçilikdən, ölkədə iqtisadi münasibətlərin subyekti olmaqdan imtina etməkdən ibarət idi. Dövlət inflyasiya ilə mübarizə və şəxsi investisiyaların, o cümlədən xarici investisiyaların stimullaşdırılması sahəsində fəal siyasət aparmalı, ciddi antimonopoliya siyasəti həyata keçirməli, ekologoya, səhiyyə, təhsil, elmin inkişafı, mədəniyyətlə bağlı qayğıları, kasıblar və əmək qabiliyyəti olmayanların qayğılarını üzərinə götürməli idi.

Dünyadakı siyasi sistemlər, dövlət quruculuğu haqqında çox geniş bilgiyə malik və zəngin dövlət idarəçiliyi təcrübəsi olan Heydər Əliyev müstəqil Azərbaycanda elə bir dövlət qurmaq istəyirdi ki, burada iqtisadiyyat planlaşmanın sərt səfərbərlik qanunlarına deyil, daim artan innovasiyalara tabe olsun. Planlı iqtisadiyyatın uzun müddət hakim olduğu postsovet ölkəsində buna nail olmaq üçün böyük siyasi iradə, dövlətin funksiyalarını keyfiyyətcə dəyişmək qətiyyəti lazım gəlirdi. Bu iradə və qətiyyəti də yalnız Heydər Əliyevdə görmək olardı.

Ulu öndər yaxşı bilirdi ki, Azərbaycanın zəngin təbii sərvətləri və iqtisadi potensialı ona böyük rəqabət üstünlüyü yarada bilər və dünyada öz layiqli yerini tutmağa geniş imkanlar açacaq. Ona görə də Heydər Əliyev yaranan bu vəziyyəti düzgün qiymətləndirərək, Azərbaycandakı neft yataqlarının işlənməsi barədə Qərb şirkətləri ilə danışıqları sürətləndirməyə başladı.

1994-cü il sentyabrın 20-də Azərbaycan hökuməti dünyanın 14 nəhəng neft-qaz şirkəti ilə "Əsrin müqaviləsi"ni imzaladı. Sonralar ulu öndər Heydər Əliyevin dünyaya səs salan neft strategiyasının ilk parlaq qələbəsi kimi tarixə yazılan bu müqavilə, ölkəyə investisiyaların cəlb olunmasında və sənayenin inkişafında müstəsna rol oynadı.

Qonşu Gürcüstandan və Ermənistandan fərqli olaraq, 1990-cı illərin ortalarından başlayaraq, 2000-ci illərin əvvəllərinə qədər Azərbaycanda evolyusiya yolu ilə, siyasi sarsıntılar və vətəndaş qarşıdurmaları baş vermədən mövcud siyasi-hüquqi inkişaf modeli formalaşmağa başladı. Bununla yanaşı, Azərbaycan, nəinki öz qonşularından, hətta MDB dövlətlərinin əksəriyyətindən daha tez qanunvericilik sistemini modernləşdirməyə başladı və demokratik azadlıqların addım-addım genişləndirilməsi üçün hüquqi baza yaratdı.

Təməlində azad iqtisadi inkişaf, sosial-mədəni tərəqqi, xalqın rifahının yüksəlməsi, ölkənin ümumi inkişafı duran bu strategiya tarix üçün çox qısa bir zamanda Azərbaycanın iqtisadi-siyasi simasını ağıla gəlməyən dərəcədə dəyişdi, xaos və anarxiyadan zəif düşmüş dövlətçiliyi hərəkətə gətirdi və ölkənin "xəstə" orqanizminin həyat fəaliyyətini özünə qaytardı.

Prezident Heydər Əliyevin həyata keçirdiyi strategiyanın ilk mühüm uğurlarından biri ölkədə yaratdığı münbit investisiya şəraiti nəticəsində Azərbaycana xarici kapital axınının artması idi. Neft-qaz ehtiyatlarına görə xarici neft şirkətləri üçün daim maraqlı olan Azərbaycan əsrin son illərində, sözün əsl mənasında, MDB ölkələri arasında birbaşa böyük xarici investisiyalar alan Rusiyadan və Qazaxıstandan sonra üçüncü yerdə idi. Əgər 1993-cü ildə Azərbaycan iqtisadiyyatı heç bir xarici investisiya almamışdısa, artıq 1994-2000-ci illərdə ölkəyə 5,5 milyard dollar birbaşa investisiya yatırılmışdı. Bu investisiyaların 3,3 milyard dolları neft sektoruna, 2,2 milyard dolları isə infrastrukturun və sənayenin başqa sahələrinin inkişafına yatırılmışdı. Beləliklə zəngin

karbohidrogen ehtiyatlarına malik Azərbaycan artıq Avropanın və bütövlükdə Qərbin "böyük enerji oyununda" mühüm rol oynayan dövlətə çevrildi.

Makroiqtisadi göstəricilərə diqqət yetirsək görərik ki, 1997-ci ildən Azərbaycanda makroiqtisadi sabitliyin bərqərar olunması, iqtisadiyyatda enmənin dayanması meyilləri, ümumi daxili məhsulun (ÜDM) artım tendensiyası müşahidə olunmağa başlanmışdır. Hakimiyyətin konsolidasiyası sayəsində çox az bir zamanda iqtisadiyyatın yüksələn templə inkişafını təmin etmək mümkün oldu. 1995-2003-cü illərdə ÜDM-in orta illik artımı 9 faiz, adambaşına düşən ÜDM-in həcmi 3 dəfə, orta aylıq əmək haqqı isə 5,3 dəfə artmışdır. Bununla yanaşı, xarici investisiyaların həcmi 10 dəfə, daxili investisiyalar 5 dəfə, büdcə gəlirləri 3 dəfə artmış, büdcə kəsiri isə minimuma enmişdir. Maraqlı cəhətlərdən biri də ondan ibarətdir ki, yeni formalaşmağa başlayan özəl sektorun ÜDM-də payı 2003-cü ilə qədər 73 faizə qalxmışdır.

Xüsusi qeyd etmək lazımdır ki, xarici investisiyalar Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasını sürətləndirməklə yanaşı, onun tranzit ölkəyə çevrilməsində də mühüm rol oynamışdır. Ulu öndər Heydər Əliyevin neft strategiyasının mühüm elementlərindən olan beynəlxalq layihələr–Bakı-Tbilisi- Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri təkcə Azərbaycan neftinin və qazının Avropaya nəqli üçün deyil, həm də Qazaxıstanın və Türkmənistanın enerji resurslarının ixracında mühüm alternativ vasitəyə çevrilmişdir. Bunlar sadəcə bir bir neft nəql edən marşrutlar deyildi. Ulu öndər ölkənin əlverişli cografi mövqeyindən maksimum istifadə etməklə, tarixi keçmişin təcrübəsinə – "Böyük İpək Yolu"na yeni həyat verməklə Azərbaycanın böyük perspektivlər vəd edən Avropa-Qafqaz-Asiya marşrutunda əsas tranzit mərkəzinə çevrilməsinə çalışırdı.

Zaman göstərdi ki, dünyanın hər hansı ölkəsində olduğu kimi, Azərbaycanda da addım-addım öz əsas prinsiplərini gündəlik həyat normasına çevirən demokratiya iqtisadiyyatın çiçəklənməsi üçün münbit zəmin yaradır. Məhz ona görə Prezident İlham Əliyev hakimiyyətinin ilk günündən Heydər Əliyevin bu istiqamətdə strateji xəttini davam etdirərək, demokratiyanı təkmilləşdirməklə Azərbaycan cəmiyyətinin və onun iqtisadi bazisinin modernləşdirilməsinin əsasına çevirməkdə israrlı olduğunu bütün dünyaya bəyan etdi.

Azərbaycanın başqa seçimi də yox idi: ya staqnasiya, ya da modernləşmə. Gənc Prezident İlham Əliyevin dövlətçilik düşüncəsinin praqmatizmi onda idi ki, o tərəqqiyə aparan yolu–modernləşməni seçdi. Əsas diqqət bütün ölkə boyu infrastrukturun müasir innovasiyalara uyğun olaraq genişləndirilməsinə yönəldi: genişmiqyaslı məktəb tikintisinə, yolların modernləşdirilməsinə, şəhər və qəsəbələrin elektrik güclərinin artırılmasına başlanıldı, rabitə və kommunikasiya sisteminin kəskin yüksəlişi baş verdi. Bununla paralel olaraq, Heydər Əliyevin sahibkarlığın inkişafı istiqamətində başladığı siyasət də davam etdirilərək bu mexanizmin inkişafı və bərqərar olması üçün bir çox tədbirlər gerçəkləşdirildi– inzibati maneələr aradan qaldırıldı, biznesə olan vergi təziyqlərinə son verildi və bu sahənin kreditlərlə təmin edilməsinə geniş imkanlar yaradıldı.

Bir-birinin ardınca ölkənin sosial-iqtisadi inkişafının yeni hədəflərini müəyyənləşdirən dövlət proqramları işlənib hazırlandı və həyata keçirilməyə başlandı. Dövlət başçısının qəbul etdiyi qərarlarda, müxtəlif çıxışlarında dəfələrlə mövcud inkişaf tendensiyasının, modernləşmənin davam etdirilməsini bəyan etməsi respublika hökuməti qarşısında da strateji bir vəzifə kimi qoyulmuşdu. Böyük neft gəlirləri ilə yanaşı, həyata keçirilən iqtisadi islahatlar, neft gəlirlərinin səmərəli idarə edilməsi və yönəldilməsi hesabına 2005-2007-ci illərdə Azərbaycan artıq ÜDM-in illik artım tempinə görə dünyanın lider dövlətlərindən birinə çevrildi. ÜDM-in artımı 2005-ci ildə 26,4 faizə, 2006-cı ildə rekord səviyyəyə–34,5 faizə, 2007-ci ildə isə 25 faizə yüksəldi. Dünyada baş verən maliyyə-iqtisadi böhranına baxmayaraq, 2008-ci ildə də Azərbaycan iqtisadiyyatı reqressiyaya məruz qalmayan çox az sayda ölkə iqtisadiyyatlarından biri oldu və həmin ildə ÜDM-in artımı 10,8 faizə çatdı. Nəticədə qısa bir zaman çərçivəsində Azərbaycan böyük bir inkişafa, iqtisadi sıçrayışa, əslində çoxlarının gözləmədiyi möcüzəyə nail oldu.

Statistik məlumatlar göstərir ki, Azərbaycanın neft-qaz sənayesinə 50 milyard dollardan çox, 1995-ci ildən bu günə qədər isə bütövlükdə ölkə iqtisadiyyatına 120 milyard dollardan çox investisiya yönəldilmişdir. Bununla belə, ölkənin valyuta ehtiyatları 53 milyard dollara çatmışdır.

2003-2013-cü illər ərzində 2 mindən çox istehsal təyinatlı obyekt istismara verilmiş, metallurgiya, maşınqayırma, emal və kimya sənayesi, tikinti materialları və digər sahələrdə yüksək inkişaf tempinə nail olunmuşdur. Bunun 100-dən çoxu iri sənaye müəssisəsidir.

Azərbaycanın inkişaf modelindən bəhs edərkən regionların sosial-iqtisadi inkişaf proqramlarını xüsusi qeyd etmək lazımdır. Hər biri beş ilə nəzərdə tutulan və mahiyyətcə 10 illik bir dövrü–2004-2013-cü illəri əhatə edən dövlət proqramlarının reallaşması regionların sosial-iqtisadi mənzərəsini kökündən dəyişdi. Ölkə tamamilə yeni bir inkişaf mərhələsinə qədəm qoydu.

2004-2013-cü illərdə Azərbaycanda ÜDM orta hesabla 3,2 dəfə, dövlət büdcəsinin gəlirləri 16 dəfə, strateji valyuta ehtiyatları 31,3 dəfə artaraq 50 milyard dolları keçdi. Nəinki Cənubi Qafqazda, bütövlükdə MDB

məkanında görünməmiş bu yüksəliş əhalinin sosial vəziyyətinə də öz müsbət təsirini göstərdi. Əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əmək haqqının məbləği 5,5 dəfə artdı, yoxsulluğun səviyyəsi 8,4 azalaraq 5,3 faizə, işsizliyin səviyyəsi iki dəfə azalaraq 5 faizə düşdü.

Statistika göstərir ki, son 10 ildə regionlarda 56 min yeni müəssisə işə salınmış, 900 mini daimi olmaqla 1,2 milyon iş yeri yaradılmışdır. Bu müddətdə 17 yeni elektrik stansiyası istismara verilmiş, respublika və yerli əhəmiyyətli 8,3 min kilometr yeni yol salınmış və ya təmir olunmuşdur.

Bütün bunlar Azərbaycan iqtisadiyyatının gələcək modernləşməsinin əsasına çevrildi. İndi Qafqaz iqtisadiyyatında aparıcı rol oynayan Azərbaycan təkcə regionun iqtisadi lideri deyil, həm də onun lokomotivinə çevrilmişdir. Çünki hazırda Azərbaycan iqtisadiyyatı Cənubi Qafqaz iqtisadiyyatının 75-80 faizini təşkil edir.

Azərbaycanın iqtisadi sahədə əldə etdiyi bütün bu uğurlar, həmçinin ölkədə həyata keçirilən liberal iqtisadi islahatlar, rəqabətqabiliyyətli, innovasiyalı iqtisadi sistemin formalaşdırılması istiqamətində atılan ardıcıl və qətiyyətli addımlar dünyanın aparıcı iqtisadi və maliyyə institutlarının, yüksək reytinqli agentliklərin, iqtisadi azadlıq səviyyəsini tədqiq edən fondların və agentliklərin diqqətindən kənarda qalmır və onlar tərəfindən yüksək qiymətləndirilir. “Moodys”, “Fitch Raitings”, “Standard and Poors” kimi dünyanın aparıcı reytinq agentlikləri hətta inkişaf etmiş ölkələrin maliyyə reytinqlərini aşağı saldıqları bir vaxtda, Azərbaycanın maliyyə reytinqi ardıcıl olaraq qalxır. Dünya İqtisadi Forumunun 2013-cü il hesabatında Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətinə görə dünya ölkələri arasında 39-cu yeri tutmuşdur.

Təbii ki, ümummilli lider Heydər Əliyevin inkişaf strategiyasının Azərbaycana gətirdiyi tərəqqini, xalqın rifahına verdiyi töhfələri bir yazı ilə tam əhatə etmək mümkün deyil. Biz müstəqillik tariximizin 20 idən bir qədər artıq zaman çərçivəsində əldə olunan nəhəng uğurların yalnız ümumi mənzərəsini göstərə bildik. Ancaq müstəqil Azərbaycanın inkişaf strategiyası təkcə bu 20 ilə hesablanmamışdır. İnkişaf və tərəqqi strategiyası ölkənin böyük gələcəyi üçün nəhəng layihələri hədəfə almışdır.

Postsovet müstəvidən ayrılıb qloballaşan dünyaya qovuşan Azərbaycanın bələdlədiyi iqtisadi oriyentirlər yaxın on il üçün Prezident İlham Əliyev tərəfindən bəyan edilmişdir. Bu gün dövlət başçısının Azərbaycan hökuməti qarşısında qoyduğu əsas vəzifələrdən biri növbəti 10 ildə qeyri-neft sektoru hesabına ÜDM-i iki dəfə artırmaqdır.

Bütün bunlar göstərir ki, ümummilli lider Heydər Əliyevin inkişaf və tərəqqi strategiyasını qətiyyətlə həyata keçirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf edir, ildən-ilə güclənir və xalqın rifah halı durmadan yaxşılaşır. Dövlət başçısının qeyd etdiyi kimi “...Bu gün Azərbaycan ən dinamik və uğurla inkişaf edən ölkələrlə bir cərgədədir. Əminəm ki, növbəti illərdə də bu dinamikanı qoruyub saxlayacaq və ölkəmizin uğurlu gələcəyini təmin edəcəyik.”

**İlqar RÜSTƏMOV.**

“**Xalq qəzeti**”.-2014.-27 aprel.-N 86.-S.4.

## HEYDƏR ƏLİYEV: MÜASİR, DEMOKRATİK AZƏRBAYCANIN MEMARI

**Elmar Qasımov,**
Ali Neft Məktəbinin rektoru
YAP Siyasi Şurasının üzvü

Müstəqillikdən sonra ölkəmizin qarşısında duran növbəti vəzifə milli həmrəyliyi və bütövlüyü təmin edəcək fundamental mənəvi faktor olan milli ideologiyanın müəyyən edilməsi və ondan milli siyasətin tərkib hissəsi kimi səmərəli istifadə mexanizminin həyata keçirilməsi idi. Amma müstəqilliyin ilk illərində mövcud olan siyasi hərc-mərclik və vahid dövlət siyasətinin olmaması bütün sahələrdə olduğu kimi, milli ideoloji siyasət sahəsində də güclü mərkəzdənqaçma meyillərinin müşahidə olunmasına və nəticə etibarilə, bu sferada ciddi boşluqların yaranmasına səbəb olmuşdu.

Milli həmrəylik və bütövlük yarada biləcək ideologiya isə yalnız 1993-cü ildəki siyasi dönəmdən sonra müəyyənləşdirildi. Azərbaycançılıq Ümummilli lider Heydər Əliyevin çıxışlarında özündə ümumbəşəri səciyyə daşıyan və milli dəyərlərə cavab verən prinsipləri ehtiva edən, milli həmrəyliyi təmin edən təkmil ideologiya halını aldı. Azərbaycançılıq təkcə bu dövlətin ərazisində yaşayan şəxsləri yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edərək dünya azərbaycanlılarının milli istinad mənbəyinə çevrildi.

Bir məqamı qeyd etmək lazımdır ki, Ulu öndər Heydər Əliyev azərbaycançılıq ideologiyasının əsaslarını, rüşeymlərini hələ Sovet dövründə Azərbaycanın Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərliyi dövründə başlatmışdır. Onun rəhbərliyi dövründə respublikanın təhlükəsizlik orqanlarından anti-azərbaycançı qüvvələr, Azərbaycanı sevməyən bəzi xalqların nümayəndələri təmizlənməyə başlandı. Və azərbaycançılıq ideologiyasının rüşeymi də, milli özünüdərk prosesinin rüşeymi də elə oradan cücərməyə başladı. Bundan sonrakı mərhələdə Ulu öndər 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra artıq bu rüşeym daha bir münbit sferaya düşməklə siyasi populyarlıq qazandı. Beləliklə, artıq 1978-ci ildə Ulu öndərin həyata keçirdiyi fəaliyyət nəticəsində Azərbaycan dili Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili kimi Azərbaycan Konstitusiyasında təsbit edildi. Hesab edirik ki, bu, Ulu öndərin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən biri idi.

Beləliklə, xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gələn Ulu öndər Heydər Əliyev müstəqillik dövründə azərbaycançılıq ideologiyasından milli həmrəyliyi və bütövlüyü təmin edən mexanizm qismində istifadə etdi. Azərbaycançılıq real tarixi keçmişimizlə, milli mentalitetimizlə və mövcud dəyərlərlə sıx bağlı olduğundan qısa zaman kəsiyində cəmiyyət tərəfindən qəbul olundu. Digər tərəfdən, bu ideologiya siyasi mənsubiyyətindən və dini əqidəsindən asılı olmayaraq, bütün etnik qrupların, milli azlıqların hüquqlarını paritet əsasda təsbit etdiyindən milli həmrəylik mənbəyinə çevrildi. Başqa sözlə, ictimai şüurun spesifik səviyyəsi kimi müstəqil Azərbaycan dövlətinin ideya əsasına və dünya azərbaycanlılarını birləşdirən milli məfkurəyə çevrilən azərbaycançılıq ideologiyası ölkədəki bütün konfessiya və etnosların həmrəylik və qarşılıqlı anlaşma mühitində yaşamasını təmin edən mənəvi mexanizm səciyyəsi daşıdı.

Ümummilli liderimiz Heydər Əliyev fəaliyyətinin hər bir məqamı ilə xalqın, dövlətin, cəmiyyətin və onun üzvlərinin mənafeyinə xidmət etmiş, Azərbaycan torpağının, Azərbaycan dövlətinin, Azərbaycan xalqının bütövlüyü uğrunda fədakarlıqla çalışmış, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, demokratiyanın genişləndirilməsi, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün mümkün ola bilən hər bir işi görmüşdür. Bu gün daha çox Ulu öndər Heydər Əliyevin müstəqillik dövründə Azərbaycan Respublikasına rəhbərliyi zamanı gördüyü işlərdən geniş bəhs edilir. Ancaq unutmaq lazım deyil ki, dövlətçilik tariximizin özünəməxsus bir həlqəsi olan Sovet dövründə də bu böyük siyasətçi və dövlət xadimi milli inkişafımız baxımından əvəzolunmaz nailiyyətlərə imza atmışdır.

Bəzən ideologiya, ideoloji prinsip dedikdə Sovet dövründəki ideologiya ilə milli ideyalar qarışdırılır. Sovet dövründə olan kommunist ideologiyası tamam fərqli məqsədə xidmət edirdi. Amma xalqın vəzifəsi və məqsədi var. Bu məqsəd və vəzifə bütün xalqı özündə birləşdirəcək amilləri ehtiva edir. Bütün xalqı özündə birləşdirən amillər bütövlükdə millət tərəfindən qəbul edilən prinsiplərdir.

Ulu öndər Heydər Əliyevin xalqımıza bəxş etdiyi əvəzsiz mənəvi-siyasi xəzinə həmin dövrdə Azərbaycan xalqının qarşısında duran əsas missiyalardan birinin - milli ideyanın müəyyənləşdirilməsi baxımından olduqca əhəmiyyətli rol oynadı. Heydər Əliyev "Azərbaycanın inkişaf yolu hayanadır?" sualına belə cavab vermişdi: "Azərbaycanın inkişaf yolu Qərbədir". "Məgər Günəş Qərbdən çıxır?" sualına isə Heydər Əliyev böyük müdrikliklə belə cavab vermişdi: "Bizim üzümüz Qərbədir ki, yenidən Şərqdən doğaq". Ulu öndərin bu sözlərində həqiqətən də çox böyük məna var. Ümummilli lider Heydər Əliyev Şərqlə Qərbin, böyük

sivilizasiyaların qovşağında yerləşən Azərbaycanın Şərqin dəyərlərini, zəngin mədəniyyətini müasir dövrümüzdə yüksək inkişafa nail olmuş Qərbin texnologiyası, ümumbəşəri demokratik dəyərləri ilə uzlaşdırmaqla, bu dəyərlərdən qidalanmaqla inkişafımızın mümkünlüyünü qeyd edirdi. Həqiqətən də, Azərbaycan müxtəlif mədəniyyətlərin qovşağında olduğuna görə xalqımız öz yolunu seçərkən Şərqlə Qərbin qarşılıqlı münasibətlərini nəzərə almalıdır. Tarixən keçdiyimiz yol və coğrafi vəziyyətimiz bunu zəruri edir.

Ümummilli lider Heydər Əliyevin məşhur bir kəlamı həmişə xalqımız üçün örnəkdir. O deyirdi: "Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir". Xalqımız əsrlər boyu həsrətində olduğu müstəqilliyə nail olduqdan sonra həmin müstəqilliyi qoruyub saxlamaq, əbədiliyini dönməz etmək, möhkəmləndirmək, Azərbaycanı dünyanın müxtəlif ölkələrində məskunlaşmış 50 milyon azərbaycanlı üçün bir mayaka çevirmək vacib bir vəzifə idi. Bu vəzifəni həyata keçirərkən, təbii ki, millətin vahid ideya ətrafında birləşdirilməsi zərurəti yaranmışdı. Ümummilli lider Heydər Əliyev milli ideyanın yaranması, xalqa çatdırılması istiqamətində xalqımıza çox böyük, əhəmiyyətli elmi-nəzəri bir irs ərməğan etdi. Həmin irs üzərində bu gün müstəqil Azərbaycan dövləti sürətlə inkişaf etməkdədir. Ulu öndərin bizə miras qoyduğu bu irsin öyrənilməsi və tədqiqi baxımından son illərdə çox böyük işlər görülmüş, nailiyyətlər əldə edilmişdir.

Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi Azərbaycan dövlətinin ideya prinsipləri yalnız bugünkü Azərbaycan üçün deyil, gələcəkdə ölkəmizin inkişafı üçün də başlıca mənbə rolunu oynayacaqdır. Ümummilli liderimiz Azərbaycanın milli ideologiyasından, milli baxışlarından danışarkən qeyd etmişdir ki, Yeni Azərbaycan Partiyasının proqramında əks etdirilən prinsiplər, əslində, Azərbaycan xalqının, dövlətimizin söykəndiyi ana prinsiplərdir. Ulu öndər Heydər Əliyev bu prinsipləri müəyyən edərkən Azərbaycan xalqının keçdiyi tarixi yolu, milli-mənəvi dəyərləri, eyni zamanda, perspektivdə qarşımızda duran vəzifələri nəzərə almışdır. Ümummilli liderimiz Azərbaycanın söykəndiyi dəyərlərdən danışarkən deyirdi: "Yeni Azərbaycan Partiyasının demokratik, hüquqi dövlət qurmaq istiqamətində irəli sürdüyü müddəalar Azərbaycan xalqının söykəndiyi əsas prinsiplər hesab olunmalıdır".

Bu prinsiplər 1992-ci ildə YAP-ın təsis konfransında qəbul edilən proqramda öz əksini tapıb. Bu proqramda Ulu öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin söykəndiyi başlıca prinsipləri qeyd edib.

Ümumiyyətlə, 1993-cü ildə Ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı ölkəni dağılmaqdan və fəlakətdən xilas etdi. Həmin illərdə Azərbaycanın siyasi və iqtisadi vəziyyətinin nə qədər ağır olduğu hamının yadındadır. Bir tərəfdən Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü, digər tərəfdən ölkənin daxilində hökm sürən hərc-mərclik və anarxiya, iqtisadi tənəzzül, mənəvi-psixoloji düşkünlük, gələcəyə inamsızlıq, vətəndaş qarşıdurmasının dərinləşməsi və s. bu tipli problemlər vəziyyəti daha da gərginləşdirmişdi. Çətin və mürəkkəb problemlərin həlli istiqamətində Heydər Əliyevin həyata keçirdiyi siyasət böyük bir təcrübə məktəbidir. Yaxın tariximizə nəzər saldıqda həyata keçirilmiş nəhəng işlərin məna və mahiyyətini bir daha görə bilərik. "Siyasət mümkün olanın əldə olunmasıdır" tezisi ilə məsələyə yanaşsaq, Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə Vətən və xalq üçün mümkün olanlardan daha çox iş gördüyünə bir daha şahid ola bilərik.

Ümummilli lider Heydər Əliyev siyasətinin digər bir örnəyi həyata keçirilən sosial-iqtisadi islahatlar və onun istiqamətləri ilə bağlıdır. Müstəqillik əldə edən ölkəmizin siyasi və iqtisadi həyatında ciddi dəyişikliklər və böyük islahatlar aparılırdı. Bu dəyişikliklər zamanı vətəndaşların sosial baxımdan müdafiəsi çox mühüm məsələ idi. Aydındır ki, müstəqil dövlət olaraq Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası baş verməli idi. Dövlət və ictimai mülkiyyətə, inzibati-amirlik sisteminə əsaslanan iqtisadi münasibətlərin bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq dəyişməsi zərurətə çevrilmişdi. İqtisadi modelin yeniləşməsi, mülkiyyət münasibətlərinin dəyişməsi böyük islahatlar proqramının reallaşdırılmasını, bu yöndə möhkəm və davamlı sistemin yaradılmasını tələb edirdi. Heydər Əliyevin həyata keçirdiyi böyük islahatların ardıcıllığı, səmərəliliyi, elmi əsaslara və sosial ədalətə söykənməsi bu prosesin ümumilikdə ölkə və hər bir vətəndaş üçün faydalı olmasını təmin etmişdir. Müəyyən edilmiş sosial ədalət prinsipi dövlət idarəçiliyində və iqtisadi islahatların həyata keçirilməsində bu gün də davam etdirilir. Məhz bu prinsipin ardıcıllığı naminə 2009-cu ilin mart ayının 18-də keçirilmiş referendumda Konstitusiyanın 15-ci maddəsinə dəyişikliklər təklif olunmuş və bu dəyişiklik xalq tərəfindən müdafiə edilmişdir. Referendumda Konstitusiyanın 15-ci maddəsinə edilmiş dəyişiklik dövlətin iqtisadi siyasətində sosialyönümlü siyasət yeritməsini təsbit edir. Bazar iqtisadiyyatı şəraitində belə bir müddəanın əsas qanuna daxil edilməsi dövlətin, hakimiyyətin vətəndaşa qayğısının göstəricisi kimi qeyd olunmalıdır.

Müstəqillik əldə etdikdən sonra ölkədə geniş və hərtərəfli islahatların aparılması üçün ilk öncə bu yöndə yeni qanunların qəbul olunması zəruri idi. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və 1995-ci ilin noyabr ayında referendum yolu ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası mülkiyyət

münasibətlərinin yeni formasını müəyyən etdi. Konstitusiyaya görə mülkiyyətin üç əsas forması: dövlət, xüsusi və bələdiyyə müəyyən edilmişdir. Sosial-iqtisadi islahatlar həyata keçirilərkən mülkiyyət formaları nəzərə alınır.

Azərbaycanda həyata keçirilən islahatlar sırasında aqrar islahat və özəlləşdirmə xüsusi yer tutmuşdur. Məlumdur ki, ən çətin və mürəkkəb islahat torpaq islahatı hesab olunur. Dünyanın əksər ölkələrində torpaq islahatları aparılarkən böyük problemlər və ziddiyyətlər özünü qabarıq şəkildə büruzə vermişdir. Azərbaycanda aqrar islahat proqramı həyata keçirilərkən digər ölkələrin təcrübəsi öyrənilmiş, məsələ ətraflı müzakirə edildikdən sonra bu yöndə müvafiq qanunlar, sərəncam və fərmanlar qəbul edilmişdir. Torpaq islahatı həyata keçirilərkən hər bir ailənin, torpağa bağlı olan hər bir vətəndaşın marağı və hüquqları qorunmaqla, bu islahatların iqtisadi səmərəliliyi də həmişə diqqət mərkəzində olmuşdur. Məhz bu cür yanaşma və ədalət prinsipinin qorunması nəticəsində bu proses Azərbaycanda əhəmiyyətli səmərə vermişdir. Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi aqrar islahatlar proqramı həm siyasi, həm də iqtisadi əhəmiyyətinə görə çox böyük bir örnəkdir.

Azərbaycanın sürətli inkişaf strategiyasının əsası Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu strategiya uğurla davam edir. Azərbaycanda 1993-2003-cü illər ərzində həyata keçirilən iqtisadi layihələr və proqramların uğurlu nəticələri sonrakı mərhələdə sürətli inkişafa ciddi və əsaslı təsir göstərmişdir. Heydər Əliyevin müəyyən etdiyi siyasi xətt əsasında çox böyük işlər görülmüş, Azərbaycanın milli təhlükəsizliyi, enerji təminatı, ərzaq təhlükəsizliyi sahəsində əhəmiyyətli nəticələr əldə olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin dövlət idarəçiliyi ilə əlaqədar keçirdiyi hər bir tədbir, qəbul etdiyi hər bir qərar, söylədiyi fikirlər müstəqil dövlətimizin bu günü və gələcəyi üçün böyük əhəmiyyət daşıyır.

Müstəqil dövlətimizin xarici siyasəti doktrinası və konsepsiyası məhz Ulu öndər Heydər Əliyev zəkasının məhsuludur. Azərbaycanın yerləşdiyi mürəkkəb və ziddiyyətli bir bölgədə milli maraqları qorumağa qadir qətiyyətli və cəsarətli xarici siyasət xəttini uğurla və böyük məharətlə reallaşdıran Heydər Əliyev milli diplomatiyamızın ən bariz örnəyini yaratmışdır. Onun hər bir xarici səfəri, apardığı danışıqlar, xarici siyasət sahəsində qəbul etdiyi hər bir qərar böyük diplomatiya məktəbidir. 1993-cü ildə Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdarkən, ölkənin bütün sahələrində olduğu kimi, xarici siyasət sahəsində də böyük bir boşluq və böhran yaşanmaqdaydı. Ümummilli lider Heydər Əliyevin Azərbaycanı həmin dövrdə böhrandan çıxarmaq yolunda gördüyü böyük işlərdən bəhs edərək Prezident İlham Əliyev demişdir: "1993-cü ildə Azərbaycanda yaşanan böhran, əslində, gənc Azərbaycan Respublikasının müstəqilliyinə son qoya bilərdi... Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində bunun qarşısı alındı, böhrana son qoyuldu, bütün qanunsuz silahlı birləşmələr tərksilah edildi və ölkə inkişaf etməyə başladı. 1993-2003-cü illər bizim hamımızın yaxşı xatirindədir: sabitlik və inkişaf illəri, Azərbaycanın dirçəliş illəri, Azərbaycanın xarici mövqelərinin möhkəmlənməsi illəri, neft müqavilələrinin imzalanması illəri. Bu gün Azərbaycanın uğurlu inkişafında o vaxt Heydər Əliyev tərəfindən atılmış addımlar müstəsna rol oynayır".

Azərbaycanın milli təhlükəsizliyinin möhkəmləndirilməsi istiqamətində Heydər Əliyevin yeritdiyi siyasətin uğurları hazırkı mərhələdə özünün müsbət təsirini göstərir. Məhz bu siyasətin sayəsində Azərbaycan öz sərvətlərinə sahib ola bilmişdir. Müstəqillik əldə edildikdən sonra Azərbaycanın xarici ölkələrlə birbaşa iqtisadi-ticarət əlaqələri yarandı. Bu əlaqələrdə başlıca istiqamətlərdən biri Xəzər dənizinin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması idi. Neftlə zəngin olan Xəzər hövzəsinə nəzarət uğrunda ötən əsrin 90-cı illərinin əvvəllərində gərgin mübarizə gedirdi. Belə bir şəraitdə Azərbaycanın maraqlarını qoruyan dəqiq və praqmatik siyasətin həyata keçirilməsi olduqca zəruri və vacib məsələ kimi qarşıda dayanırdı. Müstəqil Azərbaycan dövlətinin müstəqil enerji siyasətinə mane olmaq istəyən xarici dairələr müxtəlif təxribatlar törədirdilər. Ümummilli lider Heydər Əliyevin məharətli və çevik siyasəti sayəsində Azərbaycan bütün maneələri dəf edərək 1994-cü ilin sentyabr ayında "Əsrin müqaviləsi" kimi tarixə daxil olmuş neft müqavilələrini imzalaya bildi. Bu, tarixi bir addım olmaqla, Heydər Əliyevin uğurlu neft strategiyasının təntənəsi idi. Həyata keçirilən bu strategiya növbəti illərdə geniş şəkildə davam etdirilmiş və bu gün də Prezident İlham Əliyev tərəfindən yeni şəraitə uyğun olaraq qətiyyətlə davam etdirilir. Heydər Əliyev neft strategiyasının uğurları göz önündədir. Məhz bunun nəticəsində Azərbaycan bir-biri ilə rəqabət aparan beynəlxalq güclərin və neft şirkətlərinin döyüş meydanına deyil, əməkdaşlıq mərkəzinə çevrilmişdir. Sonrakı mərhələdə bir çox yeni müqavilələr imzalanmış və neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan neft kəməri istifadəyə verilmiş, Azərbaycanın təbii qaz ehtiyatlarının dünya bazarına çıxarılması üçün Bakı-Tbilisi-Ərzurum qaz kəməri çəkilmiş və digər infrastruktur layihələri həyata keçirilmişdir. Bütün bu layihələri reallaşdırmaq yenicə müstəqillik əldə etmiş Azərbaycan üçün o qədər də asan məsələ deyildi. Yalnız Heydər Əliyevin böyük siyasi təcrübəsi, uzaqgörən siyasəti və qətiyyəti sayəsində deyilənlərə nail olmaq mümkün olmuşdur. Ümummilli liderin müəyyən etdiyi balanslaşdırılmış xarici siyasət xəttinə söykənən Azərbaycan dövləti iqtisadi sahədə qazandığı nailiyyətlərlə

yanaşı, beynəlxalq aləmdə Ermənistanın təcavüzünü ifşa etmək istiqamətində əhəmiyyətli irəliləyişə nail ola bildi.

Əlamətdar haldır ki, Ümummilli lider Heydər Əliyevin milli təhlükəsizlik və balanslaşdırılmış xarici siyasət xətti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ona yeni dövrün sürətlə dəyişən konyukturasına uyğun konstruktiv və konseptual əlavələr edilir. Belə ki, xarici siyasət sahəsində ötən dövr ərzində nəzərə çarpacaq uğurlar əldə edilmişdir. Balanslaşdırılmış xarici siyasət kursu nəticəsində geopolitik baxımdan olduqca həssas bölgədə yerləşən ölkəmiz nəinki öz mənafelərini uğurla qoruya bilmiş, həmçinin, regionun ən vacib ölkəsinə çevrilmişdir. Xüsusilə, 2008-ci ilin avqust ayında baş verən Gürcüstan - Rusiya münaqişəsi zamanı ölkəmizin tutduğu düzgün və rasional mövqe onun beynəlxalq nüfuzunu daha da artırmış, regionun lideri olduğu bir daha öz təsdiqini tapmışdır. Azərbaycanın artan beynəlxalq nüfuzu ölkəmizin ən ağır problemi olan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlarda özünü qabarıq şəkildə göstərir. Belə ki, təcavüzkar Ermənistan beynəlxalq aləmdəki mövqeləri getdikcə zəifləyir və işğalçı ölkə dünya birliyinin qınaq obyektinə çevrilməkdədir. Azərbaycanın iqtisadi tərəqqisi beynəlxalq maliyyə qurumlarında onun əhəmiyyətini və nüfuzunu xeyli yüksəltmişdir. Ölkəmizin BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, MDB və digər beynəlxalq və regional təşkilatlarda fəaliyyəti daha da genişlənmişdir.

Göründüyü kimi, Ümummilli lider Heydər Əliyevin dövlət idarəçilik məktəbi Azərbaycanı yaxın tariximizin ən keşməkeşli sınaqlarından uğurla çıxarmaqla yanaşı, ölkəmizin perspektiv inkişafının da təməl konturlarını əsaslı şəkildə müəyyənləşdirir. Çünki Heydər Əliyevin müəyyən etdiyi milli ideya Azərbaycan dövlətçiliyinin əsaslarıdır. Bu milli ideya ətrafında Azərbaycan xalqı gələcəyə doğru gedir, inkişaf edir. Milli ideya Azərbaycan xalqı üçün daimidir və Azərbaycanın daxili və xarici siyasətini müəyyənləşdirmək, iqtisadi inkişafını təmin etmək baxımından olduqca vacibdir.

Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi milli ideyanı həyata keçirməyə və qorumağa qadir siyasi lider - Prezident İlham Əliyev və Onu dəstəkləyən Azərbaycan xalqı vardır.

**“Yeni Azərbaycan”.-**2014.-26 aprel.-№ 72.-S.4

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DEMOKRATİK DÖVLƏTÇİLİK FƏLSƏFƏSİ

**Vahid Ömərov,**
fəlsəfə üzrə fəlsəfə doktoru

Məlum olduğu kimi, demokratiya nəzəriyyəsi qəti surətdə tövsiyə edir ki, dövlət idarəçiliyi sistemi siyasəti müəyyən edən adamlara (peşəkarlara) tabe olmalıdır: bu sistem hamı üçün əlverişli olmalı, o, inzibati proseslərin və hərəkət nümunələrinin gizli olmasını mütləq minimuma endirməlidir; o, açıq olmalı və iş axtarmasından, informasiya almaq istəyindən asılı olmayaraq, bütün vətəndaşlara təqribən bərabər imkanlar yaratmalıdır; vətəndaşlara öz fikrini sərbəst ifadə etmək azadlığı verilməlidir; insanlar üçün sevmədikləri hökuməti qanuni yolla hakimiyyətdən kənar etməkdən ötrü şərait yaratmalıdır.

Demokratik dövlətin mahiyyəti mülki cəmiyyətə xidmət edən dövlətin olmasındadır. Demokratiyanın əsas prinsiplərindən biri çoxluğun idarə etməsidir. O, xalq suverenliyi doktrinasının əsasıdır. Ona əsasən xalq hakimiyyətin yeganə mənbəyi elan olunur.

Fəlsəfə üzrə elmlər doktoru Rəbiyyət Aslanova yazır ki, milli dövlətçilik, dünyanın bütün dövlətlərinin təşkilatlanmasının əsas prinsipi və modelidir. Milli dövlət-dövlət suverenliyinin başlıca daşıyıcısı, qarantıdır. Milli suverenlik - hər bir xalqın (millətin) öz ictimai-siyasi quruluşunu, ərazi bütövlüyünü, iqtisadi müstəqilliyini, mədəniyyətini və s. azad seçmək hüququ, yəni öz taleyini özünün həll etməsi hüququdur. Dövlət ali, son məqsəd, ali dəyərdir, əks təqdirdə o, suveren deyil, o öz tamlığının, müstəqilliyinin qarantı deyil, suveren hakimiyyətsiz milli dövlət yoxdur.

Suverenlik vahid və bölünməzdir və xalqa məxsusdur. Hər bir dövlət suveren olmalı, suveren olmaq üçün isə özünü milli dövlət elan etməli, onun mövcudluğunu başqa ölkələr tanımalıdır, milli dövlətlərin sərhədləri toxunulmazdır və birtərəfli qaydada dəyişdirilə bilməz. İctimai-siyasi təşkilatlanmanın milli dövlətçilik modeli, bütün dövlətləri beynəlxalq münasibətlərin vahid bərabərhüquqlu üzvləri kimi müqayisə və qəbul etməyə imkan verir. XX əsrin sonlarında dünyanın siyasi xəritəsində məlum hadisələrin baş verməsi nəticəsində müstəqil dövlətlərin sayının durmadan artmasına rəğmən onların mövcud olduğu sərhədlərin toxunulmazlığı, beynəlxalq münasibətlərin əsas prinsipi kimi bir daha möhkəmləndirildi, təsdiq edildi. R. Aslanova daha sonra göstərir ki, milli dövlətçiliyin və suverenlik prinsipinin, müasir dünyanın ictimai-siyasi təşkilatlanmasının əsas modeli kimi məqbul sayılması, "millilik" anlayışına unikal bir status verilmişdir. Millilik hər hansı bir dövlətin legitimliyinin əsaslandırılması üçün birinci (və hələlik yeganə) şərt və vasitə kimi tanınmışdır.

Məhz bu unikallığın, özəl mahiyyətin təhrif olunması, başqa sözlə desək, anlayışın universallıq kimi aspektlə varislik və bağlılığının unudulması, yaxud bilərəkdən nəzərə alınmaması bəzi üzdəniraq ideoloqların elmi-siyasi cəhətdən qeyri-real, nəticələri baxımından təhlükəli sayılan xülya və niyyətlərinə rəvac vermişdir. XX əsrin sonlarına doğru dövlət suverenliyinin əldə olunması prosesini müşayiət edən sərhədlərin toxunulmazlığı prinsipinin kobud şəkildə pozulması, millilik və millətçi-şovinizm anlayışlarının eyniləşdirilməsi nəticəsində ortaya çıxan silahlı separatizm və terror kimi hadisələr də paralel olaraq getmişdir. "Milli azadlıq hərəkatı" adlandırılaraq müstəqil dövlətimizin ərazi bütövlüyünü pozan, tarixdə dəfələrlə sərhədlərini genişləndirmək məqsədini güdən, millət-dövlətlərin formalaşma prosesinin getdiyi XX əsrin əvvəllərində olduğu kimi bu dəfə də baş qaldıran erməni millətçi-şovinizmi yenidən məhz dalğada təşəkkül tapdı. Əlbəttə, təəssüflə qeyd edə bilərik ki, ilk zamanlar öz siyasi-ideoloji doktrinalarını həyata keçirən Qərb dövlətləri, ümumiyyətlə də, dünya ölkələri, Dağlıq Qarabağ probleminə ilk vaxtdan adekvat mövqe və münasibət göstərə, müvafiq tədbirlər həyata keçirə bilmədi, təcavüzkar ermənilərin tələbləri müdafiə olundu. Dağlıq Qarabağ problemi ilə bağlı bu gün beynəlxalq təşkilatlarda qəbul olunan sənədlər, "soyuq siyasət buzunun" əriməyə başlaması Ulu Öndərimizin beynəlxalq siyasət meydanında atdığı uğurlu addımların nəticəsidir. Ötən illər ərzində Ulu Öndərimiz Heydər Əliyevin titanik əməyi və fəaliyyəti sayəsində dünyada Dağlıq Qarabağda baş verən proseslərin mahiyyəti ilə tanış olmağa doğru böyük irəliləyiş getdi. Bu gün dünya ictimaiyyəti daha qətiyyətlə belə bir fikirdə yekdil olmaqdadır: separatçı rejimlər, suverenlik və sərhədlərin toxunulmazlığı prinsipini pozmaqla, qloballaşan dünya üçün ən böyük təhlükə mənbəyidir.

Ulu Öndər çıxışlarının birində deyirdi: "Azərbaycan Respublikasının Prezidenti kimi mənim borcum, vəzifəm və məqsədim ondan ibarətdir ki, Azərbaycanda həqiqi, demokratik cəmiyyət yaransın." Dövlət bir sosial institut olaraq 10 min ildir ki, mövcuddur və ictimai maraqların təzahür və cəmiyyətin müəyyən ideyalar ətrafında strukturlaşmış formasıdır. Gecikmədən belə bir təsisat yaratmaq qarşıda duran vacib məsələlərdən idi. Heydər Əliyev deyirdi: "Müstəqilliyimizi möhkəmləndirmək üçün qarşımızda bir çox mühüm vəzifələr də

durur. Bu vəzifələr dövlətçiliyi möhkələndirmək üçün islahatlar keçirməkdən, iqtisadi, siyasi və ictimai sahələrdə islahatlar aparmaqdan, respublikamızda hüquqi-demokratik dövlət yaratmaqdan, cəmiyyətimizi tam demokratik bir cəmiyyətə çevirməkdən, insan hüquqlarının qorunması, adamların azad - asudə yaşamasını təmin etməkdən ibarətdir".

Professor Şahlar Əsgərov yazır: "Heydər Əliyev o zamankı çətin dövrdə dövləti qurmağın sirrini, elmi və siyasi konstruksiyası üçün lazım olan dövləti detalları - siyasəti, iqtisadiyyatı, mənəviyyatı lazımi istiqamətdə aparmaq üçün tələb olunan, bilgiyə, təcrübəyə, iradəyə malik idi. Sosialist dəyərlər sisteminə yox deyilmişdir. Yeni dəyərlər sistemi lazım idi. Bu dəyərlər sistemi bəşəri dəyərlər sistemi olmalı idi. Bildiyimizdən imtina etmişdik. Bilmədiyimizə tərəf gedirdik. "Tarix-inam ulduzu altında insanların azadlığa gedən yoludur" - deyiblər. Bu yolda ölkəyə Heydər Əliyev rəhbərlik edirdi."

Əli Xankişiyev göstərir ki, Heydər Əliyev siyasətində, ümumiyyətlə, azacıq da olsa təsadüf ehtimalına yer verilmir. Bu baxımdan Heydər Əliyev təcrübəsinin öyrənilməsi Azərbaycanın həm bu günü, həm də gələcəyi üçün çox böyük əhəmiyyət kəsb edir. Əvvəla, respublikamızın geopolitik vəziyyəti elədir ki, "nazik sap üzərində siyasət" məsələsi heç vaxt öz əhəmiyyətini itirməyəcəkdir. Halva-halva deməklə ağız şirin olmadığı kimi, azadlıq və müstəqillik deməklə də nə azadlıq, nə də müstəqillik əldə edilmir. Azadlığı, müstəqilliyi, milli dövlətçiliyi qoruyub saxlamaq və inkişaf etdirmək bütün dünyanın və qonşu dövlətlərlə mənafe toqquşması istisna edilməyən Azərbaycan şəraiti üçün olduqca çətin bir işdir. Belə bir işin öhdəsindən yalnız Heydər Əliyev kimi mahir və uzaqgörən siyasətçilər gələ bilər. Məşhur siyasətçilərdən birinin Heydər Əliyev haqqında dediyi sözləri xatırlamaq yerinə düşərdi: "Azərbaycanın bəxti gətirmişdir ki, onun Heydər Əliyev kimi təcrübəli, hərtərəfli geniş biliyə və bacarığa malik rəhbəri vardır. İndi dünyada belə siyasətçilər çox az tapılır."

Filosof Bernin bir fikrində deyilir: "Bir dəyərlər sistemindən digər dəyərlər sisteminə keçmək üçün nəsil dəyişməlidir". Deməli, yol uzundur. Bu dövr keçid dövrü adlanır. Keçid dövrü dövlət quruculuğunun başlandığı və qurtardığı dövrdür. Keçid dövründə ideya mənbəyi prezidentdir. Yeri gəlmişkən qeyd edək ki, stabil quruluşlarda ideya mənbəyi xalq və onun seçilmiş nümayəndələridir. A. Şopenhauerin fikrincə: "Hökmdarlar yetişmir, onlar anadan hökmdar doğulurlar". Heydər Əliyev keçid dövrünün müddətini qısalda biləcəyinə əmin olan dövlət başçısı oldu. O, yeni dövləti qurmaq üçün liberal-demokratik dəyərlər sistemini seçərək dövlət quruculuğunda istifadə edəcəyi prinsipləri belə bəyan etmişdi: "Respublikamızda hüquqi dövlət quruculuğu, demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığı, söz, vicdan azadlığının, müasir plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması bizim əvvəldən qəbul etdiyimiz prinsiplərdir" .

Ulu Öndər dövlət quruculuğu zamanı milli və bəşəri dəyərlərin vəhdətindən, tarixi ənənələrdən istifadə ediləcəyi haqda əhaliyə vaxtaşırı məlumat verirdi: "Dövlət qurulduqca nəinki tarixi və milli ənənələrimiz nəzərə alınır, həm də dünya təcrübəsindən, demokratik prinsiplərdən istifadəyə edilir".

Heydər Əliyev əhaliyə müraciət edir, gələcəyə baxmağı tövsiyə edir və hər bir kəsi dövlət quruculuğunda öz töhfəsini verməyə çağırırdı. Dövlət aparatının demokratik modeli Böyük Öndərin aşağıdakı fikirləri ilə həmahəng səslənir: "Siz gələcək övladlarınızı, nəvələrinizi də düşünməlisiniz ki, onlar necə yaşayacaqlar. Əgər biz bu dövləti, demokratik-hüquqi dövləti, bazar iqtisadiyyatı yolu ilə gedən dövləti qursaq və bunu qurmalıyıq - Azərbaycanın iqtisadi potensialı o qədər böyükdür ki, onu beləliklə, hərəkətə gətirib Azərbaycanın iqtisadiyyatını inkişaf etdirəcəyik və ölkəmizin hər bir vətəndaşına normal, firavan həyat sürməyi təmin edə biləcəyik, Bu, bizim hamımızın vəzifəsidir. Təkcə Prezidentin yox, hər bir vəzifəli şəxsin vəzifəsidir, hər bir vətəndaşın vəzifəsidir. Çünki bu ölkə bizimkidir, bu xalq, bu dövlət bizimkidir".

Ş. Əsgərov Ulu Öndərin demokratik dövlət quruculuğunun əsas istiqamətlərini belə müəyyənləşdirir:

* Azərbaycanın müstəqilliyi bütün Azərbaycan xalqının milli sərvətidir və heç cür yol vermək olmaz ki, bu ayrı-ayrı siyasi partiyaların, qurumların, şəxslərin müstəsna səlahiyyətinə, monopoliyasına çevrilsin;
* Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və qoruya bilərsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar;
* Bu gün bolşeviklərin və kommunistlərin özünü doğrultmayan təcrübələrindən yenidən istifadəyə yol verilməməlidir;
* Müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi hər şeydən əvvəl respublikada qanunların toxunulmazlığından, qanunun aliliyindən asılıdır. Totalitarizmdən tamamilə xilas olmaq yalnız demokratiyanın ardıcıl inkişafı siyasi plüralizm, insan azadlığı şəraitində mümkündür. Söhbət söz, vicdan, din, təşəbbüskarlıq və sahibkarlıq, mülkiyyətçilik, seçib-seçilmək azadlığından gedir.

Professor R. Aslanova yazır: "Dünyada baş verən hadisələr millı dövlətçilik maraqlarını "ləğv etmir." Məsələnin mahiyyəti əslində başqa müstəvidədir. Tarixdən məlumdur ki, dünya inkişafının keçid, dəyişiklik adlandırılan məqamlarında dövlətçilik və onun maraqlarının zamanın tələblərinə uyğun qurulması problemi bütün ölkələr qarşısında durmuşdur.

Hazırda dünya dövlətləri məhz belə bir transformasiya çağını, keyfiyyət dəyişikliyini yaşayırlar. Belə dövrlərdə hər bir ölkə dəyişikliklərin labüdlüyü meyili ilə milli dövlətçilik maraqlarının bu dəyişikliklərə uyğun çevik mexanizmini yaratmaq zərurətini həli etməli olurlar. Əgər "milli dövlətçilik" deyilirsə, burada həm "millilik " həm də "dövlətçilik" mənafelərinin vəhdətdə iştirak etdiyini unutmaq olmaz. Məlumdur ki, müxtəlif siyasi şəraitdə, müxtəlif qüvvələr millilik və dövlətçilik anlayışlarını bir-birindən öz məqsədlərinə uyğun təcrid edir, ictimai şüurun bu mövzuya həssas münasibətini manipulyasiya edirlər. Dövlətçiliyin maraq və mənafelərini arxa plana keçirərək milli maraqlar adı ilə öz şəxsi niyyətlərini həyata keçirirlər. Bütün hallarda millilik və dövlətçiliyin həssas və kövrək ahəngi, bütövlüyü nəzərə alınmadıqda nəticələr istənilən kimi olmur."

R. Aslanova daha sonra qeyd edir: "Ümummilli Liderimiz Heydər Əliyevin dövlətçilik siyasətinin bu baxımdan nəticələri günümüzün reallığı və ən böyük uğurlarımızdır. Dövlət müstəqilliyinin bütün sahələrdə möhkəm təməllərinin qurulması ilə bərabər, Azərbaycanın dünyaya tanıdılması, siyasi sabitliyin təmin edilməsi, iqtisadiyyata aparıcı beynəlxalq təşkilatların maliyyə və sərmayə qoyuluşunun cəlb edilməsi kimi müdrik siyasət dünya inkişafının mövcud meyillərini nəzərə almaqla həyata keçirilmiş, Azərbaycanın suverenlik statusunun mövcud problemlərin həlli mexanizmində hər an qətiyyətlə vurğulanmışdır. Ulu Öndərimiz dəyişən dünyanın indisi və gələcək perspektivlərinə adekvat cavab verən dövlətçilik siyasətinin əsas istiqamətlərinin strategiyasını Azərbaycana irs qoyub getmişdir."

**“Səs”.-**2014.-29 aprel.-№ 76.-S.15.

## ÖNDƏR

**Zöhrab PAŞAYEV,**
Azərbaycan Dıovlət İqtisa Universiteti vergi və vergiqoyma kafedrası müdirinin müavini, iqtisad üzrə fəlsəfə doktoru

**Bəli, qardaş Türkiyənin Baş nazirinin bu hikmətli sıozündə bıoyük həqiqət var. Mən də o xoşbəxtlərdənəm ki, XX əsr Azərbaycan tarixini ıozündə cəmləşdirən, Azərbaycan tarixinin parlaq səhifəsinə layiqli imza atan ulu ıondər Heydər Əliyevlə birbaşa təmasda olmuşam və onun xeyir-duasını almışam. Gənc nəslə diqqət və qayğı dahi ıondər Heydər Əliyevin fəaliyyətinin aparıcı istiqamətlərindən olmuşdur. Heydər Əliyev deyirdi ki "cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə ıoyrətməyimizdən asılı olacaqdır".**

Gənclərlə iş, milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılması ümummilli liderimizin gündəlik işinə çevrildi. Azərbaycanda elmin, təhsilin maddi-texniki bazası və kadr potensialı əsasən XX əsrin sonlarında formalaşdı. 1970-1980-ci illərdə on minlərlə gəncin SSRİ-nin ən nüfuzlu ali məktəblərinə gıondərilməsi yüksək ixtisaslı 15 minə yaxın kadr ordusunun yaradılmasına səbəb oldu. Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı ilə respublikamızdan kənarda SSRİ-nin 50-dən artıq bıoyük şəhərinin 170-dən çox ali məktəbində 80-nə yaxın ixtisas üzrə 15 min azərbaycanlı təhsil almışdır. Bu gün Heydər Əliyevin milli kadrları ıolkədə ən yüksək mıovqelərdə çalışırlar. Onların sırasında nazirlər, komitə sədrləri var. Bu kadr ordusuna və Azərbaycana bu gün rəhbərlik edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də ulu ıondərin yetirmələrindəndir.

1994-cü il sentyabrın 14 - də dıovlət başçısı ali məktəblərə qəbul olunmuş bir qrup tələbə ilə gıorüş keçirdi. Həmin dıovrdə ıolkədə gərginlik yaşanırdı, kriminogen durum mıovcud idi. Belə bir vəziyyətdə dıovlət başçısının tələbələri qəbul etməsi gənclərə olan qayğının və gələcəyə inamın bariz nümunəsi idi. Həmin gıorüş zamanı ümummilli lider gənclərin ıolkə həyatında rolu, imtahanların nəticələri, təhsilin gələcək istiqamətləri barədə ətraflı danışıldı. Sonra çıxışlar oldu. Sıoz aldım və ulu ıondərin Azərbaycan dıovlətinə rəhbərlik etdiyi dıovrlərdə gıordüyü işlərdən danışdım. Atamın, anamın və qohumlarımın respublikanın aparıcı təhsil ocaqlarında təhsil aldıqlarını bildirdim. Ümummilli liderimizə birinci dəfə hakimiyyətdə olduğu dıovrdə gıostərdiyi konkret xidmətlərə gıorə onların adından da təşəkkür etdim.

Çıxışım zamanı gənclərin dıovlət başçısının ətrafında birləşdiyini və onun həyata keçirdiyi siyasəti dəstəklədiyimizi bəyan etdim. Ulu ıondər mənə gələcək fəaliyyətimdə müvəffəqiyyətlər arzuladı. Ümummilli lider tarixi çıxışında təkrar-təkrar xatırlatdı ki, gənclər xalqın gələcəyidir, onların qarşısında bıoyük işlər durur.

Tariximiz onu deməyə əsas verir ki, xalqın mənafeyi ortaya gələndə Heydər Əliyev hər zaman qətiyyətli və cəsarətli olmuşdur. Heydər Əliyevin tarixi şəxsiyyət, ümummilli lider kimi bir daha fundamental uğuru ondan ibarətdir ki, onun qurduğu müstəqil Azərbaycan dıovlətçiliyi yaşayır və inkişaf edir. Xalqımızın milli mənlik şüurunun oyanışında, dıovlətçilik təfəkkürünün formalaşmasında da bu dahi şəxsiyyətin əvəzsiz xidmətləri var. Dıovlətçiliyimizin müqəddəratının həll edildiyi, müstəqilliyimizin təhlükə ilə üzləşdiyi 1993-cü ilin iyun günlərində xalqın təkidilə yenidən Heydər Əliyevin ıolkə rəhbərliyinə qayıdışı nəticəsində uçurumun bir addımlığında dayanan Azərbaycanın dıovlət müstəqilliyinin qorunması üçün əsas zəmin və mıohkəm təməl quruldu.

Ulu ıondər Heydər Əliyevin uzaqgıorənliyi və müdrikliyi, mərdliyi və fədakarlığı nəticəsində müstəqil dıovlətimizin təməli mıohkəmlənmiş, bıoyük dühanın ən bıoyük əsəri olan müasir Azərbaycan dıovlətçiliyi qurulmuşdur. Son 40 ilə yaxın müddətdə dıovlətimizin inkişafına nəzər salanda dəfələrlə bunun şahidi oluruq. Qeyd etmək lazımdır ki, 70-ci illərdə yaradılmış elmi texniki istehsal potensialı olmasaydı, bu gün müstəqil Azərbaycan çoxlu çətinliklər, problemlərlə üzləşərdi.

Heydər Əliyevin Azərbaycanın inkişafı ilə bağlı müəyyən etdiyi strategiyada sənaye, onun struktur və səmərəlilik problemləri xüsusi yer tutur. Çünki bunları həll etmədən respublikanın dinamik inkişafına nail olmaq mümkün deyildi. Bu strateji xətti həyata keçirmək üçün Heydər Əliyev titanik fəaliyyət gıostərərək ciddi maneələrin aradan qaldırılmasına və Azərbaycan sənayesinin strukturunun təkmilləşdirilməsinə dair SSRİ-nin ali rəhbər orqanı tərəfindən xüsusi qərarın qəbul edilməsinə nail olmuşdur. Respublikamızın iqtisadi inkişaf tarixində mühüm rol oynayan bu proqramın həyata keçirilməsi nəticəsində sənayedə kıoklü keyfiyyət dəyişiklikləri aparılmış, yeni tipli sənaye müəssisələri, müasir istehsal sahələri istifadəyə verilmiş, on minlərlə yeni iş yerləri açılmış, istehsalın mədəni texniki səviyyəsi xeyli yüksəlmiş, insanların rifahı yaxşılaşmışdır.

1971-1975-ci illərdə Azərbaycan iqtisadiyyatının bütün sahələrində məcmu ictimai məhsul 44 faiz, milli gəlirin ümumi həcmi isə 39 faiz artmışdır. Sənayedə məhsul artımının 76 faizi əmək məhsuldarlığının yüksəlməsi hesabına əldə edilmişdir.

Respublikanın neft maşınqayırması Sovet İttifaqının neft-mədən avadanlığının üçdə birindən çoxunu, neftçıxarma texnikasının 70 faizini təmin etmişdir. Neft emalı və neft kimyası sənayesi, əlvan və qara metallurgiya yüksək sürətlə inkişaf edirdi. Neftayırma sənayesinin yenidən qurulmasına və modernləşdirilməsinə başlandı. Nəqliyyat, rabitə və digər sahələrdə bıoyük nailiyyətlər əldə edildi. Təkcə 1971-1975-ci illərdə 77 müəssisə, 782 istehsal sahəsi kompleks halda mexanikləşdirilmiş və avtomatlaşdırılmışdır.

Onun yetişdirdiyi milli kadrlardan biri, Lomonosov adına MDU-nun məzunu B.İmanquliyev 1992-ci ildə Amerika-İngiltərə Ümumdünya Televiziya Xəbərlərinin (WTN) əməkdaşı kimi Naxçıvanda ulu ıondərlə gıorüşlərini belə xatırlayır:

- Bir neçə dəfə ciddi sıohbətlərimiz oldu. Ən maraqlısı isə Bakıda kondisioner zavodunun inşası ilə bağlı idi. Heydər Əliyev zavodun tikintisinin bir neçə dəfə dayandırıldığından belə danışdı: “Azərbaycan kimi aqrar respublikalarda nəhəng sənaye obyektlərinin tikintisi nəzərdə tutulmurdu. Ona gıorə iş başlayandan bir müddət sonra tikintini dayandırdılar. Birbaşa Brejnevə müraciət etdim, tikintinin davam etdirilməsinə nail oldum. Bir qədər vaxt ıotdükdən sonra tikinti yenidən dayandırıldı. Mən Brejnevin yanına girib soruşdum ki, Leonid İliç, siz doğrudan Kommunist Partiyasının Baş katibisiniz? Sual onun xoşuna gəlmədi: “Bu nə sualdır verirsiniz, Siz buna şübhə edirsiniz”? - deyəndə, cavab verdim ki, xeyr, Leonid İliç, mən şübhə etmirəm, amma, gıorünür, şübhə edənlər var. Məsələ burasındadır ki, Sizin razılığınızla Bakıda kondisioner zavodunun tikintisinə başlanıldı. Lakin artıq neçənci dəfədir ki, sizin birbaşa gıostərişlərinizə baxmayaraq, tikinti dayandırılır. Gıorünür, kimlər üçünsə Baş katibin gıostərişi o qədər də əhəmiyyətli deyil. Brejnev yubanmadan müşavirə çağırdı, zavodun tikintisinin təcili sürətdə başa çatdırılması barədə gıostəriş verdi, açılışda şəxsən iştirak edəcəyini bildirdi. Bu məsələdən sonra Siyasi Büronun bütün üzvləri mənimlə hesablaşırdılar”. Ümumiyyətlə, Azərbaycanda 1970-1980-ci illərdə 125 yeni dıovlət sənaye müəssisəsi, o cümlədən 1970-1975-ci illərdə 64, 1976-1980-ci illərdə isə 61 dıovlət sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Həmin illər ərzində sənaye-istehsal işçilərinin sayı təxminən 100 min nəfər artaraq 1980-ci ildə 408,4 min nəfərə çatmışdır.

Beləliklə, 1969-1982-ci illər ərzində Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf etmiş və bıoyük iqtisadi potensial yaranmışdı. Bunu respublikada istehsal olunan əsas sənaye məhsullarının natural istifadədə dinamik inkişafı da sübut edir. Belə ki, 1970-ci ilə nisbətən 1982-ci ildə elektrik enerjisi istehsalı 1,4 dəfə, mineral gübrələr 2 dəfə, mancanaq dəzgahları 2 dəfə, pambıq lifi 2,3 dəfə, soyuducular 3,8 dəfə artmışdır. Andropovun vəfatından sonra hakimiyyəti ələ keçirən Mixail Qorbaçov Siyasi Büroda lider keyfiyyətlərinin bütün parametrləri üzrə ən güclü şəxsiyyət Heydər Əliyev olduğunu yaxşı bilirdi. Bu insanın güclü siyasi iradəsi, dıovlət quruculuğu sahəsindəki zəngin təcrübəsi, yüksək idarəçilik bacarığı, işgüzarlığı və beynəlxalq aləmdə “Brejnev komandasının ən güclü şəxsiyyəti” kimi tanınması ziyafətlər və siyasi intriqalarla hakimiyyətə gələn primitiv kəndli təfəkkürünə malik Qorbaçovu vahimələndirməyə bilməzdi. Arvadı Raisa Maksimovnanın erməni dostlarına vəzifə paylayan Mişa Qorbaçov Sovet İttifaqının bir nıomrəli şəxsiyyətinin qüdrəti və iradəsi qarşısında zəif idi. Erməni maliyyə mənbələrindən və bıoyük güc mərkəzlərindən asılı, iradəsiz Qorbaçovu, Qdlyanın Orta Asiyada siyasi səhnəyə çıxardığı pambıq şousunu, Aqanbekyanın Qarabağ məzhəkəsini, təbii ki, Heydər Əliyev qəbul etmirdi.

Digər bir tərəfdən, artıq Kremlin ıozündə beynəlxalq güc mərkəzlərinin İttifaqı dağıtmaq cəhdlərini aydın gıorürdülər. Siyasi Büro üzvlərinin pərdəarxası sıohbətlərində Sovet İttifaqını kimin xilas edəcəyi barədə sıohbətlər gedirdi. Hamı yaxşı bilirdi ki, bunu Heydər Əliyevdən başqa kimsə bacarmayacaq. Brejnev komandasının ən güclü simasının Qorbaçovun bir nıomrəli rəqibinə çevrilməsi labüd idi. Nəhəng beynəlxalq güclərin himayədarlığı altında Qorbaçovu üzük kimi mühasirəyə alan erməni millətçiləri Heydər Əliyevə qarşı nəhəng əks-təbliğat maşınını işə saldılar. 1987-ci ilə kimi səngiməyən bu kampaniyada Qorbaçov Heydər Əliyevi zəiflətmək, ermənilər isə Azərbaycanın Siyasi Büroda nüfuzlu təmsilçisini, Qarabağın ən güclü müdafiəçisini Kremldən uzaqlaşdırmaq niyyətini güdürdülər. Lakin bütün bunlara baxmayaraq, Heydər Əliyevin qətiyyəti və zəngin təcrübəsi imkan verdi ki, hadisələrə sinə gərsin. Qorbaçovun “yenidənqurma” adı altında apardığı islahatlar tədricən milli zəmində aparılan münaqişələrə çevrildi. Iozbəkistanda, Qazaxıstanda tıorədilən qanlı hadisələrin sədası Baltikyanı və Qafqaz respublikalarından gəldi. “Yenidənqurma” vüsət aldıqca, bütünlükdə Kreml mərkəz kimi nüfuzunu itirməyə, qanlı münaqişələr isə gıorünməmiş sürətlə Sovetlər Birliyinə sarsıdıcı zərbələr endirməyə başladı. Ən ağır zərbələrdən biri 1990-cı ilin yanvar ayında başını itirmiş Sovet ordusu tərəfindən Bakıda dinc əhaliyə tutulan divanla nəticələndi.

Qorbaçov Almaniyanın birləşməsinə kıomək etdiyinə gıorə Nobel mükafatı alsa da, onun İttifaq daxilindəki qanlı cinayətləri cəzasız qaldı. Bu dıoyüşdə uduzan, parçalanan Sovet İttifaqı oldu, ulu ıondər isə ıoz

xalqının tələbi ilə ümummilli lider kimi Vətənə dıondü, onu parçalanmaqdan qorudu, bütün təcrübəsini, bilik və bacarığını müstəqil Azərbaycanın gələcəyinə həsr etdi.

1993-cü ildə Azərbaycan dıovlətçiliyi çox bıoyük təhlükə qarşısında idi. Xalqı birləşdirib ıoz arxasınca apara biləcək müdrik liderə – Xilaskara ehtiyac vardı. Bu tarixi missiyanı ulu ıondər Heydər Əliyev yerinə yetirdi. Qardaş Türkiyənin sabiq Prezidenti Süleyman Dəmirəl “Tarixə məktub” (24 dekabr 2004-cü il) məqaləsində yazmışdır: “Azərbaycan müstəqil milli dıovlətinin varlığı türk dünyası üçün və Azərbaycan üçün mıohtəşəm bir hadisədir. Bu dıovlətin yenidən qurulmasında, mıohkəmlənməsində, güclənməsində, Türkiyə və dünya dıovlətləri ilə əlaqələrin qurulmasında Heydər Əliyevin heç bir ıolçüyə sığmayan, unudulmaz bıoyük xidmətləri vardır. 1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə gələn Heydər Əliyev ıolkəni parçalanmaq təhlükəsindən qorumaqla yanaşı, dıovlətin gələcək strategiyasının müəyyənləşdirilməsində ıonəmli rol oynadı”.

“Şahdəniz-2” layihəsinin açılışındakı mərasim zamanı 1994-cü ildə təməli qoyulan enerji strategiyasından danışarkən hıormətli Prezidentimiz İlham Əliyev dedi: “Biz buna ümummilli liderimiz Heydər Əliyevin müdrikliyi və uzaqgıorənliyi nəticəsində nail olmuşuq. Müstəqillik əldə etdikdən sadəcə 3 il, Azərbaycanda vətəndaş müharibəsinin bitməsindən bir il, Ermənistanla müharibədə atəşkəsin əldə edilməsindən yalnız 4 ay sonra Azərbaycan xarici tərəfdaşları ilə birlikdə “Əsrin müqaviləsi”ni imzalamışdır. Bu hadisə ilk dəfə Xəzər dənizini xarici sərmayələrə açmışdır və ıolkəmizin uğurlu iqtisadi inkişafını təmin etmişdir. Həmin müqavilə XX əsrin müqaviləsi adlandırılmışdır. “Şahdəniz” isə düşünürəm ki, XXI əsrin müqaviləsi olacaqdır".

Məlum olduğu kimi, 1994-cü ilin sentyabr ayında Xəzərin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarından müştərək istifadə edilməsi və neft hasilatının artırılmasının təmin olunması üçün beynəlxalq müqavilə imzalandı. Bu müqavilənin iştirakçıları beynəlxalq konsorsium təşkil etdilər və həmin konsorsium Azərbaycan Dıovlət Neft Şirkəti ilə 30 il müddətinə müqavilə - “Əsrin müqaviləsi”ni imzaladı. Həmin müqavilədən sonra Azərbaycana, onun neftinə, ələlxüsus Xəzər neftinə dünya miqyasında maraq artdı. Təkcə bir faktı gıostərmək kifayətdir ki, 1994-cü ildə Bakıda keçirilən beynəlxalq “Xəzərneftqaz” sərgisində on bir ıolkədən 117 şirkət iştirak edirdisə, dıordüncü beynəlxalq sərgidə 25 ıolkəni 250 şirkət təmsil etmişdir. Bunun ıozü Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artdığının gıostəricisidir.

Dahi ıondərimiz Heydər Əliyevin uzaqgıorən siyasəti və gərgin fəaliyyəti nəticəsində 1995-ci ildən başlayaraq ıolkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində çox bıoyük nailiyyətlər əldə olunmuşdur. Bu dıovrdə ıolkəmizdə aparılan müstəqil dıovlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir istiqaməti yaranmışdır. Ümummilli liderin bilavasitə rəhbərliyilə ıolkənin sosial-iqtisadi inkişaf xəttini müəyyən edən bir çox irimiqyaslı konsepsiya, strategiya və proqramlar qəbul edilməsi, Azərbaycanda kiçik və orta sahibkarlığa dıovlət yardımı, kiçik və orta sahibkarlığın inkişafı Dıovlət Proqramının, eləcə də maşınqayırma sənayesinin, aqrar bıolmənin, turizmin inkişafı, yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə, həmçinin regionların sosial-iqtisadi inkişafı üzrə dıovlət proqramlarının təsdiqi səmərəli nəticələrini real həyatda gıostərməyə başladı. Bu sənədlər ıolkə iqtisadiyyatının davamlı və dinamik inkişafını təmin etmək üçün zəmin yaratmış, sərbəst bazar münasibətlərinə əsaslanan sosial yıonümlü iqtisadi sistemin formalaşdırılmasına, ıolkədə mıovcud olan təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın fəal surətdə təsərrüfat dıovriyyəsinə cəlb olunmasına, milli iqtisadiyyatın dünya təsərrüfatı sisteminə səmərəli inteqrasiyasının təmin olunmasına rəvac vermişdir.

Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin taktikasının fərqləndirici xüsusiyyətləri gıostərilən istiqamətlərin hər biri üzrə fəaliyyətin paralel şəkildə həyata keçirilən əlaqələndirilmiş proqramlar üzrə aparılması, həmçinin iqtisadi inkişafın obyektiv qanunauyğunluqlarını nəzərə alan, gələcəyə hesablanmış cəsarətli qərarların qəbul olunması, bu zaman sosial yıonümlülüyün gıozlənilməsi və mütərəqqi dünya təcrübəsindən faydalanması ilə xarakterizə oluna bilər.

İpək Yolu və Şimal-Cənub nəqliyyat dəhlizinin kəsişməsində yerləşən Azərbaycan əzəldən Asiya və Avropa arasında kıorpü rolunu oynamışdır. İki qitəni birləşdirən qədim İpək Yolunun ıolkəmizin iqtisadi həyatında xüsusi çəkisi danılmazdır. Çünki beynəlxalq yük daşımalarının ıolkəmiz üzərindən keçməsi dıovlət büdcəsi ilə yanaşı, vətəndaşların da iqtisadi durumunun yaxşılaşmasına, yeni iş yerlərinin açılmasına təkan verir. Regionda ıolkəmizin strateji çəkisini artıran amillərdən biri də onun coğrafi baxımdan əlverişli ərazidə yerləşməsidir.

Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasının mühüm gıostəricilərindən biri ıolkəmizin xarici ıolkələrlə idxal-ixrac əməliyyatlarının həcminin ilbəil artmasıdır. Təkcə 2002-ci ildə ıolkəmiz 128 xarici dıovlətlə ticarət əməliyyatları aparmış, xarici ticarət dıovriyyəsinin ümumi həcmi 3833,1 milyon dollar, o cümlədən idxal 1665,6 milyon, ixrac 2167,5 milyon dollar olmuşdur. 2002-ci ildə 501,9 milyon dollar həcmində müsbət xarici ticarət saldosu yaranmışdır. Ticarət dıovriyyəsinin 56,6 faizini ixrac, 43,4 faizini idxal təşkil etmiş, ixracının idxalı ıotmə əmsalı 130,1 faiz olmuşdur.

İqtisadi islahata gəldikdə isə o, 1996-cı ildən başlayaraq ıoz bəhrəsini verməkdədir. İnflyasiya 1994-cü ildəki 1600 faizdən 1996-cı ilin birinci yarısında beş faizə enmişdir.

Azərbaycanın milli valyutası ABŞ dollarına nisbətən 10 faiz, Rusiyanın rublu ilə müqayisədə 23 faiz mıohkəmlənmişdir. Əgər 1990-cı ildən başlayaraq Azərbaycanın sənaye istehsalı ilbəil aşağı düşmüşdüsə, 1997-ci ilin birinci rübündə 0,4 faiz artım olmuşdur. Bu, artıq müsbət meylin sabit və ardıcıl olduğunu gıostərirdi.

Maliyyə sistemində də ciddi irəliləyişlər olmuşdur. Belə ki, büdcə kəsiri ümumi daxili məhsula nisbətən 1994-cü il üzrə 13 faizdən 2002-ci ildə 0,35 faizə, 2003-cü ildə isə 0,12 faizə qədər azaldıldı və büdcə kəsirini Milli Bankın kreditləri hesabına doldurmaq praktikasına son qoyuldu. Eyni zamanda, Milli Bankın kredit dərəcələri 1994-cü il üzrə 200 faizdən 7 faizə qədər endirildi. Milli valyutanın - manatın məzənnəsi isə sabitləşdirildi. Bundan əlavə, aparılan uğurlu islahatlar nəticəsində qiymətlər, valyuta bazarı və xarici ticarət fəaliyyəti tamamilə sərbəstləşdirildi.

Daxili və xarici sərmayələrin stimullaşdırılması və qorunması sahəsində zəruri və təkmil hüquqi bazanın yaradılması nəticəsində ıolkə iqtisadiyyatına yatırılan sərmayələrin həcmi ilbəil artmışdır. 1998 - 2003-cü illərdə Azərbaycan iqtisadiyyatının bütün maliyyə mənbələri üzrə 11,2 milyard manat və ya 11,6 milyard ABŞ dolları həcmində iqtisadiyyata sərmayə yıonəldilmişdir. Hər il orta hesabla 1,8 milyard manat (2 milyard ABŞ dolları) və adambaşına təxminən 24 ABŞ dollarına qədər sərmayə qoyulmuşdur. Azərbaycan bu gıostəriciyə gıorə nəinki MDB ıolkələrini, həm də Şərqi Avropanın bəzi dıovlətlərini geridə qoymuşdur.

Təkcə 2003-cü ildə bütün maliyyə mənbələri hesabına ıolkə iqtisadiyyatının inkişafına 3,6 milyard manat və ya əvvəlki illə müqayisədə 71,2 faiz çox əsas kapitala investisiya yıonəldilmişdir.

Qeyri-dıovlət mülkiyyətinə məxsus müəssisə və təşkilatlar əsas kapitala 3,2 milyard manat (88,7 faiz), dıovlət mülkiyyətinə məxsus müəssisə və təşkilatlar 400 milyon manat (11,3 faiz) investisiya yıonəltmişlər.

İstifadə edilmiş investisiyada xarici sərmayənin xüsusi çəkisi 80,5 faiz və ya 2,8 milyard manat, daxili investisiya 19,5 faiz və ya 800 milyon manat təşkil etmişdir. Əsas kapitala yıonəldilmiş daxili investisiya əvvəlki ilin müvafiq dıovrünün səviyyəsindən 32,6 faiz, xarici sərmayə isə 84,2 faiz çox olmuşdur. Müəssisə və təşkilatların əsas kapitala yıonəltdikləri sərmayənin həcmi ümumi investisiyanın 3 milyard manatını, bank kreditləri 57,2 milyon manatını, büdcə vəsaitləri 9,9 milyon manatını, büdcədənkənar fondların vəsaitləri 29 milyon manatını, əhalinin şəxsi vəsaitləri 114,4 milyon manatını, digər vəsaitlər 200 milyon manatını təşkil etmişdir.

İqtisadiyyata investisiya qoyuluşu üçün dıovlət büdcəsindən də maliyyə vəsaiti ayrılmışdır. Belə ki, 1995 - 2003-cü illər ərzində dıovlət büdcəsində nəzərdə tutulan investisiya yıonümlü xərclər 4,5 dəfə artırılaraq 2003-cü ildə 203 milyon manata çatdırılmışdır. 2003-cü ildə investisiya yıonümlü xərclər dıovlət büdcəsinin ümumi xərclərinin 18,7 faizini təşkil etmişdir.

Onu da qeyd etmək yerinə düşər ki, Heydər Əliyevin siyasi kursunun davamçısı ıolkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi iqtisadi siyasət də məhz Azərbaycan vətəndaşlarının sosial-iqtisadi vəziyyətinin daim yaxşılaşmasına yıonəlmişdir. İqtisadi inkişafın əsas gıostəricilərindən olan ÜDM-in artım tempi bunu bir daha təsdiqləyir. Belə ki, son 5 ilin iqtisadi gıostəricilərinə nəzər salsaq, ÜDM-in 2009-cu ildə 35601,5 milyon manatdan 2013-cü ildə 57708,2 milyon manata qədər artdığını gıorərik. Bununla yanaşı, 2009-cu ildə büdcə gəlirləri 10325,9 milyon manatdan 2013-cü ildə 19494,6 milyon manata, əhali gəlirləri 2009-cu ildə 22601,1 milyon manatdan 2013-cü ildə 37555,5 milyon manata, əhalinin hər nəfərinə düşən gəlir 2009-cu ildə 2560,4 manatdan 4039,6 manatadək artmışdır. Ümumi daxili məhsulda qeyri-dıovlət sektorunun xüsusi çəkisinin 85 faizə çatması, kənd təsərrüfatı məhsullarının 99 faizinin, sənaye məhsullarının 55 faizə qədərinin qeyri-dıovlət sektorunda istehsal olunması mükəmməl işlənmiş dıovlət siyasətinin uğurlu nəticəsidir.

Mıovcud iş yerlərinin 78 faizi və dıovlət büdcəsi gəlirlərinin 80 faizi ıozəl sektorun payına düşür. Onu da qeyd etmək yerinə düşər ki, son illərdə vergi sisteminin təkmilləşdirilməsi, vergitutma bazasının genişləndirilməsi, vergi xidmətində ən müasir standartların tətbiqi sahəsində mühüm tədbirlər həyata keçirilməsi, vergilərin kıonüllü ıodənilməsi prinsipinin bərqərar olması, bununla sahibkarlıq strukturları və ümumən vergi ıodəyiciləri arasında məlumatlandırma-maarifləndirmə işlərinin genişləndirilməsi təmin edilmişdir.

Prezident İlham Əliyevin xarici siyasətdə ulu ıondərimiz tərəfindən müəyyənləşdirilmiş vahid strategiya və dəyişməz prioritetlərə sadiqlik nümayiş etdirməsi dünya dıovlətlərinin Azərbaycana inamını, etimadını gücləndirən ən başlıca amildir. Prezident İlham Əliyev haqlı olaraq bəyan edir ki, hər hansı ıolkənin inkişafı heç də təbii sərvətlərin zənginliyi ilə deyil, demokratikləşmə proseslərindən, qanunun aliliyinin qorunmasından, vətəndaş cəmiyyəti təsisatlarının inkişafından asılıdır: “Ölkədə həm siyasi, həm də iqtisadi sahədə islahatlar cəsarətlə aparılır. Mən tam əminəm ki, siyasi və iqtisadi islahatlar, iqtisadi yüksəliş və demokratikləşmə prosesləri bir-birini tamamlamalıdır və paralel şəkildə həyata keçirilməlidir.” Mıohtərəm Prezidentimiz

"Şahdəniz-2" layihəsinin açılış mərasimində bildirdi ki, bu, dünyanın ən iri enerji layihələrindən biridir. Bu layihə enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir. Bu tarixi layihədə iştirakçı dıovlət və şirkətlərin geniş əməkdaşlığı təmin ediləcəkdir. Bu hadisə ilk dəfə Xəzər dənizini xarici sərmayələrə açmışdır və ıolkəmizin uğurlu iqtisadi inkişafını təmin etmişdir. Bu tədbirdən əvvəl isə müstəqil Azərbaycanın enerji sahəsinin inkişafında bir sıra mühüm tarixi hadisələr baş vermişdi. 1996-cı ildə "Şahdəniz" qaz yatağı ilə bağlı saziş imzalanmış, sonra 1999-cu ildə Xəzər dənizini Gürcüstanın Qara dəniz sahilləri ilə birləşdirən ilk boru kəməri inşa edilmişdir. Daha sonra - 2006-cı ildə Xəzər dənizini Aralıq dənizi və beynəlxalq bazarlarla birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəməri, 2007-ci ildə isə Cənub qaz boru kəməri inşa edilmişdir. Bu kəmər Azərbaycan, Gürcüstan və Türkiyəni hazırkı mərasimin tərkib hissəsi olan digər layihə ilə birləşdirmişdir.

Hadisənin mahiyyəti tək onda deyil ki, imzalanma mərasimində Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, bir sıra ıolkələrin prezident və baş nazirləri, rəsmi nümayəndələri vardı: sıozügedən hadisə ıozündə bıoyük və əvəzsiz işin yekununu ehtiva edirdi. Beynəlxalq ekspertlər nahaq yerə bu hadisəni "əsrin ikinci kontraktı" adlandırmırlar. Layihə Azərbaycan Respublikasının strateji maraqlarını təmin etməklə bərabər, həm də Avropanın ciddi gıozləntilərinə cavab verir ki, bu da həm Cənubi Qafqazda, həm də bütıovlükdə qitədə həyati əhəmiyyətə malik enerji təhlükəsizliyinin təminatının daha bir açarının əldə olunması deməkdir.

Uğurla gerçəkləşən layihə, bütün baxış bucaqlarından, Azərbaycanın siyasi rəhbərliyinin nə dərəcədə səlist siyasət aparmasının gıostəricisidir. 1994-cü ildə olduğu kimi, bu dəfə də genişmiqyaslı qurucu proqramın reallaşması qarşısında bəzi qüvvələr maneə, problem yaratmağa çalışdı, lakin onların səyləri nəticə vermədi. Ona gıorə ki, layihənin əsasında düzgün hesablamalar dayanır. Rəsmi Bakı, necə deyərlər, "A"-dan "Z"-yə bütün nüansları dəqiq ıolçüb-biçdikdən sonra bıoyük məclis qurub hadisəyə həyati vəsiqəni verdi.

Bu, sıozün əsl mənasında, daha bir tarixi təntənədir. O, tək bugünün deyil, uzaq perspektivin təməlinin qoyulduğu dıonüş məqamıdır ki, azərbaycanlılarda gələcəklə bağlı aydın mənzərə yaranır. Ancaq nikbinlik doğuran bu duyğuların fonunda bədxahların sabotaj və təxribat ruhlu hərəkətləri də diqqət çəkir. Həmin hərəkətlərlə bağlı deyiləsi bir fikir varsa, bu da ondan ibarətdir ki, ağıl və məntiq qarşısında hiylə və bəhanələr həmişə gücsüz olub. Bu kontekstdə yaxın keçmişə ekskurs etməyə dəyər.

"Əsrin kontraktı" 1994-cü ildə Bakıda imzalananda da bəzi qüvvələr siyasi demarş etməklə incimə pozası aldılar. İlk nıovbədə Rusiya, sonra İran məsələni elə təqdim etdi ki, guya Azərbaycan onların payından nəsə gıotürüb və bunun hesabına da ıozünə əncam çəkib. Lakin qonşuların məntiqsiz mıovqeyi qarşısında Prezident Heydər Əliyev qapıları bağlamayıb: "biz əməkdaşlığa hazırıq, buyurun gəlin və müqavilədə iştirak edin" – dedi. Bu addım siyasət patriarxının həm uzaqgıorənliyindən, həm də kompromis ruhundan xəbər verirdi.

Digər tərəfdən, Avropanın enerji bazarında Azərbaycan ıozünü xeyli dərəcədə korrekt aparmaqla heç kəsin məkanına müdaxilə etmir və cənub dəhlizində şəffaf strategiya həyata keçirməyə meyil gıostərir. TANAP, TAP kimi layihələr uğurla reallaşdırılır, qitənin cənubunda yerləşən əksər ıolkələrlə orta məxrəc tapılır və bununla da Bakı Avropanın şimalına gıoz dikmir (Rusiyanın mıovcud olduğu məkan anlamında).

İstər ümummilli liderimiz, istərsə Prezident İlham Əliyev dıovləti beynəlxalq güc mərkəzlərinin təzyiqləri qarşısında qalmaqdan qorumaqla yanaşı, daxili və xarici siyasətin uzlaşdırılmasında, xalqın firavan gələcəyinə xidmət etməsi naminə vəchlə çalışmışdır. Bu konteksdə həyata keçirilən tədbirlərin biri də ıolkədə təhsilin inkişfaının prioritet elan edilməsidir. Bunun sayəsində respublikamızda təhsilin səviyyəsi günü-gündən yüksəlir və dünya təhsil sisteminə inteqrasiya edilir. 1992-ci ilin may ayında Heydər Əliyev Naxçıvanda ona baş çəkməyə gələn milli kadrları Türkiyənin millət vəkillərinə təqdim edərkən demişdi: "Bu gəncləri mən Sovet İttifaqının ən güclü ali məktəblərinə oxumağa gıondərmişdim. İndi mənimlə gıorüşə gəliblər. İmkanım olsaydı, onları İstanbula, Londona, Parisə gıondərərdim". O, müstəqillik illərində bu arzusunun reallaşdırılması üçün ciddi addımlar atdı. Prezident İlham Əliyev ümummilli liderin bu nəcib təşəbbüsünü uğurla davam etdirir.

"2007 - 2015-ci illərdə Azərbaycan gənclərinin xarici ıolkələrdə təhsili üzrə Dıovlət Proqramı" çərçivəsində 1200-ə qədər gənc Türkiyənin, Almaniyanın, İngiltərənin, dünyanın digər inkişaf etmiş dıovlətlərinin ən nüfuzlu universitetlərində bakalavr, magistratura, aspirantura, kliniki ordinatura, doktorantura və digər proqramlar üzrə təhsil alır. Bu proses bu gün daha geniş istiqamətlərdə davam etdirilir. Eyni zamanda, bu gün ıolkənin ali təhsil müəssisələrində xarici ıolkələrdən gələn yüzlərlə tələbə təhsil alır.

Prezident İlham Əliyevin rəhbərliyi altında ıolkəmizdə və dünyanın aparıcı universitetlərində 10 ildən bir az artıq müddət ərzində formalaşan minlərlə bilikli mütəxəssis iqtisadiyyatın yeni və mürəkkəb sahələrini qurur, kosmik sənayenin əsasını qoyur, yeni texnologiyaları uğurla istehsalata tətbiq edir. Azərbaycan qloballaşan dünya ilə ayaqlaşa bilir, bıolgədə liderə çevrilir, qlobal bıohranları asanlıqla dəf edir. Bu uğurlar hər birimizə və müstəqil Azərbaycana şərəf gətirir.

Qeyd edilənlər bir daha gıostərir ki, Azərbaycan dıovləti bütün sahələrdə dinamik inkişaf yolunu seçmişdir.

**“Xalq qəzeti”.-**2014.-30 aprel.-N 88.-S.3.

# AZƏRBAYCANI TARİXİ ARZULARINA QOVUŞDURAN FENOMENAL ŞƏXSİYYƏT

**Asif ƏSGƏROV,**
Səbail Rayon İcra Hakimiyyətinin başçısı,
Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü

**Möhtəşəm tarixi hadisənin – Azərbaycanın böyük oğlu ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü təntənələrinin astanasındayıq. Bu gün ulu öndəri tanıyan hər bir insan onun ölməz şəxsiyyətinin əzəməti barədə fikir yürütməyə mənəvi ehtiyac duyur. Ümummilli liderin parlaq şəxsiyyəti ilə bağlı ən müxtəlif fikir və mülahizələr, xoş xatirələr isə sonda bir nöqtədə birləşir: Heydər Əliyev həyatını istisnasız olaraq Azərbaycana, bütün mənalı ömrünü yalnız insanlığa xidmət etməyə həsr etmişdi!**

Bu böyük insan haqqında deyilən sözlər, söylənilən fikirlər ifadə üslubuna görə fərqlənsə də, məzmunu ilə Heydər Əliyev şəxsiyyətinin dahiliyini ən müxtəlif tərəflərdən ifadə edir. Onun böyüklüyünü hər birimiz illər keçdikcə daha dərindən dərk edirik. O, şərəfli həyat və fəaliyyəti ilə tarixi min illərlə hesablanan, dünyanın zəfər salnaməsinə şanlı səhifələr yazmış qədim bir xalqın rəmzi səviyyəsinə yüksəlmişdir. Bu gün qədirbilən hər bir Azərbaycan vətəndaşının qəlbində ulu öndərin ölməz və işıqlı obrazı yaşayır. Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan siyasi sisteminin yaradıcısı, azərbaycançılıq ideologiyasının banisi, Azərbaycanda milli özünüdərk prosesinin yaradıcısı və idarəedicisi ulu öndər Heydər Əliyev Azərbaycan xalqının dövlətçilik tarixində o qədər böyük yeniliklərə, nəhəng işlərə imza atıb ki, deyilən sözlər onun cahanşümül fəaliyyətini əhatə etməkdə acizdir.

Biz bu gün Azərbaycan tarixində yeni bir era yaratmış ulu öndər haqqında danışarkən, adətən, onu ümummilli lider kimi səciyyələndiririk. Əlbəttə, bu, mübahisəsiz və şərhsiz olaraq belədir. Lakin əlavə etməyə ehtiyac duyulur ki, Heydər Əliyev şəxsiyyəti və onun fəaliyyəti təkcə Azərbaycanın etnosiyasi coğrafiyası ilə məhdudlaşmır. O, istər sovet xalqlarının, istərsə də digər yaxın-uzaq xalqların tarixində mühüm rol oynamış, onların həyatına təsir edəcək proseslərə rəvac vermiş və imza atmış bir şəxsiyyətdir.

Digər tərəfdən, Azərbaycan tarixinin Heydər Əliyev dövrü də təkcə sürətli inkişaf, yüksəliş anlayışları ilə səciyyələnmir. Bu, daha çox mahiyyətcə yeni dövrün, yeni tarixin formalaşması kimi bir anlama uyğun gəlir. Heydər Əliyev Azərbaycanın qədim və çoxəsrlik tarixinin yeni dövrünü, daha dəqiq desək, Azərbaycanın yeni tarixini yaratmışdır. Bu nadir tarixi dühanın bizlərə ərməğan etdiyi bugünkü müstəqil Azərbaycan onun milli tariximizdə unudulmaz və əbədi iz qoyduğunun parlaq nümunəsidir. Şübhəsiz, bu dövrə, bu tarixə Heydər Əliyevin adı əbədi həkk olmuşdur.

Heç də təsadüfi deyil ki, xalqların dünya miqyasındakı yeri qeyri-adi idarəçilik keyfiyyətləri, mütərəqqi ideyaları, mürəkkəb siyasi şəraitdə məsuliyyəti öz üzərinə götürmək bacarığı ilə fərqlənən dahi şəxsiyyətlərin tarixi missiyası ilə birbaşa bağlıdır. Məhz belə şəxsiyyətlər xalqının ən ümdə istək və arzularının gerçəkləşməsində müstəsna rol oynayırlar. Azərbaycanda belə bir fövqəladə missiyanı Heydər Əliyev həyata keçirərək, dünyanın ən qüdrətli siyasi xadimləri ilə bir sırada dayanmaq haqqı qazanmışdır.

Bu görkəmli dövlət xadimi tarixi irs və milli dəyərlər zəminində müasir dövlətçilik sistemimizin siyasi dayaqlarını yaratmaqla, XX əsrin sonunda yenidən əldə etdiyimiz müstəqilliyimizin əbədi və dönməz xarakter almasına nail olmuşdur. Məhz bu misilsiz xidmətləri sayəsində Heydər Əliyev öz xalqının siyasi və dövlətçilik şüurunda ümummilli lider yüksəkliyini fəth etmişdir. Heydər Əliyev zamanın ərsəyə gətirdiyi lider olmaqdan əlavə, həm də qeyri-adi istedadı və yaddaşı, universal biliyi, mahir liderlik keyfiyyətləri ilə seçilən nadir şəxsiyyətdir. Tarix isə belə dahi insanları unutmur.

Ulu öndər Heydər Əliyev 34 ildən artıq bir dövrü əhatə edən zəngin siyasi fəaliyyəti ilə Azərbaycan dövlətinin tarixində müstəsna rol oynamışdır. Məhz buna görə xalqımız ulu öndərin adını milli tariximizə dövlətimizin xilaskarı, memarı və qurucusu kimi həkk etmişdir.

Həyatımız durmadan inkişaf edir, bir nəsil digər nəsli əvəz edir, cəmiyyətdə yeni fikri və düşüncələr meydana gəlir. Lakin dəyişməyən bir anlam var. Təkzibolunmaz həqiqət bundan ibarətdir ki, Heydər Əliyev fenomeni bütün dövrlər və nəsillər üçün əbədilik statusunu qazanmışdır. Haqqında danışdığım bu ecazkar hadisənin səbəblərini araşdırmağa çalışsam, ilk növbədə, Heydər Əliyevin Azərbaycanın müasir tarixinin gedişinə misilsiz təsirini vurğulamaq lazım gələr. Əslində, bu tarixi Heydər Əliyev özü yaradıb desəm, yenə də yanılmaram.

İnsanlar Heydər Əliyevi həm də ona görə unutmurlar ki, onların həyatında baş vermiş müsbət dəyişikliklər məhz ulu öndərin adı, müəyyən etdiyi siyasətlə birbaşa əlaqədardır. Əgər 70-80-ci illərdə Azərbaycanın intibahı fonunda insanların həyatının müsbət irəliləyişlərə doğru günbəgün dəyişməsini orta və yaşlı nəsillər unutmayıbsa, eynilə də 20 il əvvəl ölkənin fəlakət girdabından çıxarılmasını, əmin-amanlığın bərqərar edilməsini, yüksək tərəqqiyə gətirib çıxaran islahatların həyata keçirilməsini hər kəs yaxşı xatırlayır. Heydər Əliyev hər bir azərbaycanlı üçün onun fərdi həyatını dəyişdirən dahi şəxsiyyət olaraq qavranılır və dəyərləndirilir.

Heydər Əliyev həm də insanların qəlbində ona görə yaşayır və əbədi olaraq yaşayacaq ki, o, həmişə ən möhkəm tellərlə xalqa bağlı olub, xalqla nəfəs alıb, onun güc və qüdrət mənbəyinə çevrilib. Sağlığında hər bir azərbaycanlı Heydər Əliyevdə öz arzu və istəklərinin təcəssümünü görüb. İndi isə ulu öndərin ideyaları milli iradənin ifadəsi, milli özünüdərkin fundamental əsası kimi qəbul olunur.

Tarixə möhür vurmuş böyük şəxsiyyətlər, ilk növbədə, insanlar üçün cəlbedici və real görünən mütərəqqi ideyalarla cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuş və ictimai inam qazanmışlar. Xalqların tarixən formalaşan maraq və mənafeyini maksimum dərəcədə özündə ehtiva edən bu ideyalar, eyni zamanda, onların perspektiv milli inkişafı üçün möhkəm bünövrəyə çevrilmişdir. Həqiqi azadlığa zəmin yaradan iqtisadi müstəqillik də məhz belə fenomen şəxsiyyətlərin milli resursları nəzərə almaqla müəyyənləşdirdiyi inkişaf strategiyasına əsaslanmışdır.

XX əsrdə xalqımızın yetirdiyi fenomenal tarixi şəxsiyyət – ümummilli lider Heydər Əliyev də müasir Azərbaycan dövlətinin ideoloji-siyasi əsaslarını tarixi irs və ənənəyə uyğun olaraq gerçəkləşdirmiş dahi strateq kimi xalqımızın əbədi və tükənməz sevgisini qazanmışdır. Ulu öndərin əbədiyyətə qovuşmasından ötən zaman kəsiyi bizə bu fövqəlşəxsiyyətin çağdaş tariximizdə yerini və rolunu daha dərindən başa düşmək, həyata keçirdiyi siyasətin mahiyyətini dərindən dərk etmək, qiymətləndirmək imkanı vermişdir. Bu qiymətləndirmə fonunda bir həqiqət istisnasız qəbul olunur ki, Azərbaycanın müstəqillik illərində sosial-iqtisadi, elmi-təcrübi və mədəni-humanitar sahələrdə qazandığı böyük uğurlar ümummilli lider Heydər Əliyevin ötən əsrin 70-80-ci illərində respublikaya rəhbərliyi dövündə müdrikliklə formalaşdırdığı zəngin resurslardan qaynaqlanır.

Məhz bu dövrdə ulu öndər Heydər Əliyev respublikanın keçmiş ittifaq miqyasında geridə qalmış respublikalardan biri kimi tanınması ilə barışmayaraq, belə vəziyyətin kökündən dəyişdirilməsi üçün qətiyyətli addımlar atmış, mövcud resursları səfərbər etməklə, tərəqqi və inkişaf prosesindəki maneələrin aradan qaldırılmasına nail olmuşdur. Bu dahi insan respublikanın sosial-iqtisadi cəhətdən geridə qalmasının səbəblərini ilk gündən dəqiqliklə müəyyən etmiş, xalq kütlələrini səfərbərliyə almaqla mövcud nöqsanları, çatışmamazlıqları həll etmişdir.

Ümummilli lider olaraq o, respublikanın siyasi rəhbərliyinin birliyinə nail olmaqla yanaşı, kadrların milliləşdirilməsinə, azərbaycanlıların, xüsusilə gənclərin bütün sahələr üzrə vəzifəyə irəli çəkilməsinə çalışmışdır. Həqiqi xalq lideri olan Heydər Əliyev dövlət strukturlarında azərbaycanlıların xüsusi çəkisinin artmasını təmin etmiş, onların yüksək idarəçilik keyfiyyətləri əxz etməsi üçün zəruri tədbirlər həyata keçirmiş, öz təcrübəsi ilə canlı məktəbə çevrilmişdir.

Sovet İttifaqı kimi böyük bir dövlətin zəngin iqtisadi potensialından, geniş imkanlarından istifadə edərək respublikanı tərəqqi yoluna çıxaran Heydər Əliyev yeni və mütərəqqi sənaye sahələrinin yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirmişdir. Elmi-texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalatda tətbiqi Azərbaycanın bütün SSRİ-də qabaqcıl mövqelərə çıxmasına, sosial-iqtisadi həyatında yüksəlişə rəvac vermişdir. Ümummilli liderin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri Azərbaycanda inşa olunmuş, bununla da respublikanın gələcək müstəqilliyinin iqtisadi əsası hələ o zaman formalaşdırılmışdır.

Böyük strateq həmin dövrdə özünün dövlət idarəçiliyi proqramında mədəni və mənəvi intibahı iqtisadiyyatda və sənayedəki uğurlarla tamamlayaraq daha da sürətləndirmişdir. Məhz Heydər Əliyevin rəhbərliyə başlaması ilə sovetlər dövrünün son onilliklərində Azərbaycan cəmiyyəti milli şüurun formalaşması baxımından daha fəal, məhsuldar mərhələyə qədəm qoymuş, bu dahi insanın təşəbbüsləri ilə xalqımızın milli mənlik şüurunun inkişafına güclü təkan verən tədbirlər həyata keçirilmişdir. Sovet ideologiyasının hakim kəsildiyi bir zamanda Heydər Əliyev xalqımızın mənəvi dəyərlərinin əriyib-itməməsi üçün əlindən gələni etmişdir. Bu böyük şəxsiyyət sovet ideologiyasının bütün maneələrini adlayaraq Azərbaycanın milli inkişaf konsepsiyasını önə çəkmiş, ictimai şüurdakı qorxunu, ehtiyatlılığı aradan qaldırmış, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişlərə ruhlandırmışdır.

Məhz o dövrdə milli və mənəvi dəyərlərin qorunub-saxlanılmasında, dövlətçilik ənənələrinin inkişafı istiqamətində əməli addımlar atılmış, xalqın intellektual keyfiyyətlərinin meydana çıxması üçün əsaslı zəmin yaradılmışdır. Həyata keçirilən məqsədyönlü siyasət sayəsində sonradan xalqın milli oyanışı və müstəqillik

ideyalarının gerçəkləşməsi üçün əlverişli şərait formalaşmışdır. Heydər Əliyev zəmanəsinin böyük filosofu və mütəfəkkiri idi. Onun formalaşdırdığı azərbaycançılıq ideyası milli-siyasi şüurun təməl prinsipi kimi dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Ulu öndərin milli dirçəliş ideyası tezliklə əməli siyasət müstəvisinə keçərək strateji dövlət siyasətinə çevrilmişdir.

Xalqımızın böyük oğlu keçmiş Sovet dövlətinin ali rəhbərliyində təmsil olunduğu dövrdə də doğma Azərbaycanının tərəqqisi üçün səyini əsirgəməmiş, lazım gəldikdə öz yurdunun taleyi ilə bağlı məsələlərdə qətiyyət göstərərək, sərt bəyanatlarla çıxış etmiş, əsl vətənpərvərlik mövqeyi sərgiləmişdir.

XX əsrin 80-ci illərinin sonunda SSRİ adlı böyük bir məkanda baş verən ictimai-siyasi proseslər və xalqımızın azadlıq mücadiləsi nəticəsində Azərbaycan yenidən öz dövlət müstəqilliyinə qovuşdu. Müstəqilliyin bərpasının ilk illərində Azərbaycan Respublikası ötən əsrin əvvəllərində mövcud olmuş Xalq Cümhuriyyətinin aqibəti ilə üzləşdi. Ancaq bu dəfə xalqımızın xoşbəxtliyi onda idi ki, artıq onun Heydər Əliyev kimi sınanmış lideri var idi və bu ölüm-dirim savaşında xalq onu yüksəklərə qaldırmış oğlunun arxasında idi.

Böyük xilaskarın dövlətçiliyimizin ən ağır günlərində göstərdiyi prinsipiallıq və iradə sonsuz Vətən sevgisinin parlaq nümunəsidir. Ümummilli lider kimi o, Azərbaycanı labüd fəlakətlərdən qurtarmış, ölkəmizi çevriliş, qiyam cəhdlərindən qoruyaraq cəmiyyətdə özünəinam hissini bərpa etmiş, soydaşlarını sabitliyə, firavanlığa qovuşdurmuşdur. Ulu öndər xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəldiyi ilk gündən Azərbaycanın milli dövlətçilik atributlarını formalaşdırmağa başlamış, həqiqi suverenliyi deklorativ müstəqillik aktı və bəyanatlar çevrəsindən çıxarmışdır.

Həmin dövrdə dövlər başçısı kimi Heydər Əliyev Azərbaycanda müstəqil dövlətin möhkəmləndirilməsi, idarəetmə proseslərinin mərkəzləşdirilməsi, milli iqtisadiyyatın durğunluq prosesinin dayandırılması məqsədi daşıyan sosial-siyasi və iqtisadi islahatlar həyata keçirməyə başlamışdır. Bütün bunlar isə Azərbaycana öz maraqları çərçivəsindən yanaşanların məkrli niyyətlərinin üstündən birdəfəlik qələm çəkmişdir. Ümummilli lider Heydər Əliyevin uzaqgörənliyinin, prinsipiallığının və siyasi iradəsinin məntiqi nəticəsi olaraq 1994-cü ildə “Əsrin müqaviləsi”nin əfsanədən reallığa çevrilməsi ölkənin bütün strateji əhəmiyyətli sahələrinin inkişafına təkan verməklə, Azərbaycanda hüquqi-siyasi islahatların yeni mərhələdə aparılmasına da geniş imkanlar açmışdır.

Böyük siyasət və dövlət xadimi olan Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk konstitusiyası isə ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirmiş, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi əsaslandırmışdır. Məhz bundan sonra ölkəmiz vahid Avropa ailəsinə daxil olmuş, Azərbaycan müstəqil siyasət yeridən ölkə kimi özünü bütün dünyaya təqdim etmişdir.

Prezident Heydər Əliyev bu mərhələdə respublikanın yeni dövr üçün demokratik inkişaf modelini müdrikliklə irəli sürmüş, eyni zamanda, mütərəqqi dəyişikliklərin ictimai şüurda tədricən qəbul olunması zərurətini önə çəkmişdir. Böyük rəhbərin irəli sürdüyü milli ideya Azərbaycanın tarixi ənənələrini və müasir Avropa dəyərlərini özündə birləşdirən yeni inkişaf strategiyasının təməli olmuşdur. İctimai-siyasi sabitlik amili bu strategiyanın əsas dayaqlarından və istinad nöqtələrindən biri kimi çıxış etmişdir.

Məhz bu sabitliyin, iqtisadi tərəqqinin nəticəsidir ki, hazırda demokratik normalar qanunların və milli dəyərlərin tənzimlədiyi sərhədlərdən kənara çıxmır və cəmiyyətin inkişafına uyğun olaraq getdikcə ictimai şüur bu gerçəkliyi tam şəkildə mənimsəyib rəhbər tutur.

Azərbaycan xalqının milli ideologiyasının vahid sistem halına gətirilməsi də məhz ulu öndər Heydər Əliyevin müstəqil respublikamıza rəhbərliyi dövründə gerçəkləşmişdir. Bütün ruhu, canı ilə mükəmməl azərbaycanlı timsalına çevrilən ümummilli lider cəmiyyətin bütövləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlər görərək ümumxalq birliyinin dərin politoloji-nəzəri əsaslarını irəli sürmüşdür.

Böyük strateq azərbaycançılığın tarixən formalaşmış ayrı-ayrı komponentlərini vahid konsepsiyada birləşdirərək onu dövlət idarəçiliyinin elmi-nəzəri bazasına çevirmiş və praktikada uğurla tətbiq etmişdir.

Xalqımızın milli-mənəvi dəyərlərini özündə cəmləşdirən, dövlətlə vətəndaşların mənafeyini üzvi şəkildə birləşdirən bu ideologiya ölkənin milli birliyi üçün uğurlu təməl rolunu oynayır.

Ümumilikdə, yeni minilliyin başlanğıcında formalaşan mürəkkəb və ziddiyyətli dünya nizamı böyük siyasət ustadının məharətlə əsaslandırdığı inkişaf modelinin respublikamız üçün müstəsna əhəmiyyətini tam sübuta yetirmişdir. Respublikanın son 20 ildə iqtisadi və demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində qazandığı böyük nailiyyətlər də məhz ümummilli lider Heydər Əliyevin formalaşdırdığı möhkəm təmələ əsaslanır. İqtisadi sahədə keçid dövrünü başa vuran Azərbaycan bu gün

özünəməxsus milli inkişaf modeli ilə tərəqqi yolundadır. Bu modelin üstün cəhətləri beynəlxalq maliyyə qurumlarında dəfələrlə təqdir və təsdiq olunmuşdur.

Azərbaycan xalqının mütləq lideri olmuş Heydər Əliyev bir çox siyasi xadimlərin həsəd apara biləcəyi fitri idarəçilik qabiliyyəti, müasir dünyanın ən aktual çağırışlarını cavablandırmaq bacarığı ilə milli dövlətçilik tariximizin əbədiyaşar simasına çevrilmişdir.

Bu nadir şəxsiyyət özündən sonra gələn nəsillər üçün çox zəngin irs qoymuşdur. Bu irs bütöv bir idarəçilik məktəbini, xalqımızın özünütəsdiq və həmrəylik hisslərini, dövlətçilik şüurunu, çağdaş ictimai-siyasi fikrin ən ümdə keyfiyyətlərini özündə ehtiva edir. Milli özünüdərkin ən yüksək siyasi ifadəsi olan müstəqil dövlət ideyası ən yeni tariximizdə məhz Heydər Əliyevə məxsusdur.

Ümummilli lider Heydər Əliyev çağdaş Azərbaycan tarixində taleyüklü hadisələrlə zəngin böyük bir dövrdür. Həyat göstərir ki, Heydər Əliyevin adı, ideya və əməlləri ilə bağlı bu dövr uzun zaman davam edəcək. Bu inam Heydər Əliyevin formalaşdırdığı böyük siyasətin davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin möhtəşəm uğurlarından, xalqın Prezidentə etimadının və dəstəyinin əzəmətindən qaynaqlanır. Ölkəmizin yeni mərhələdə dinamik inkişafı, dünya birliyində öz yerini daha da möhkəmləndirməsi, həqiqətən, ümummilli liderin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir.

Ulu öndərin yaratdığı müstəqil dövlətçilik və azərbaycançılıq məfkurəsi bu gün Prezident İlham Əliyev tərəfindən daha da zənginləşdirilərək qloballaşan dünyamızdakı mürəkkəb proseslər fonunda Azərbaycanı zirvələrə aparan ideoloji baza, mənəvi xəzinə rolunu oynayır. Ümummilli liderin mənəvi-siyasi irsinin ən layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın çağdaş tarixinin yeni şanlı səhifələri yazılır. Milli tariximizin ən möhtəşəm azərbaycanlısı Heydər Əliyevin ölməz ideyalarından güc alan müstəqil Azərbaycan işıqlı gələcəyə doğru inamla addımlayır.

Bütün ölkə vətəndaşları və dünya azərbaycanlıları qəlbən inanırlar ki, 91 il əvvəl dünyaya göz açmış və şüurlu həyatını canından əziz bildiyi Vətəninə xidmətdə keçirmiş Heydər Əliyevin dühası işığında doğma Azərbaycanımız həmişə irəliyə və yüksəlişə doğru gedəcəkdir.

“**Xalq qəzeti**”.-2014.-1 may.-N 89.-S.3.

# MİLLİ İNKİŞAF STRATEGİYASININ MÜƏLLİFİ

**Xatirə ƏLİYEVA,**
YAP mətbuat xidmətinin əməkdaşı,
siyasi elmlər üzrə fəlsəfə doktoru

**Dəyişməz olan, ən əsası, reallıqlar əsasında öz təsdiqini tapan bir gerçəklik daim önə çəkilir ki, gələcəyə keçmişi ilə addımlayan, bugünü ilə qürür duyub, perspektivdə bir-birindən əhəmiyyətli uğurlara imza atacağına ümidlə baxan xalqlar, dövlətlər hər zaman tarixin çətin sınaqlarından üzüağ çıxmış, milli varlıqlarını qorumaq imkanı əldə etmişlər. Azərbaycanın keçdiyi inkişaf yolu, xalqımızın tarix boyu əyilməzliyi, yenilməzliyi, qəhrəmanlığı deyilənlərin təsdiqidir. Daim azadlıq, müstəqillik uğrunda mübarizə aparan Azərbaycan xalqı XX əsrin əvvəllərində müstəqilliyinə qovuşsa da, onun ömrü məlum səbəblərə görə uzun olmadı.**

O dövrdə baş verən hadisələri xarakterizə edən ulu öndər Heydər Əliyev bildirirdi ki, Azərbaycan Xalq Cümhuriyyəti az müddət yaşayıb. Ancaq o XX əsrdə Azərbaycan xalqının həyatında tarixi bir mərhələ olub və xalqımızın gələcəyinin, müstəqilliynin, azadlığının, suverenliyinin təməlini qoyub: "1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Cümhuriyyəti də bizim milli sərvətimizdir, tariximizin parlaq səhifəsidir. Ondan sonrakı illər, onilliklər də həyatımızın böyük mərhələləridir, parlaq səhifələridir, xalqımızın böyük nailiyyətləridir. Məhz bunlar hamısı birlikdə indiki müstəqil Azərbaycanın həm iqtisadi, elmi, intellektual, həm də mədəni potensialını yaradıblar".

1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etdi. Lakin həmin dövrdə ölkəmizə rəhbərlik edənlərin səriştəsizliyi, idarəçilik qabiliyyətlərinin yoxluğu, öz şəxsi ambisiyalarını dövlətin maraqlarından üstün tutmaları ölkəni elə bir ağır durumla üz-üzə qoydu ki, xalq bu müstəqilliyin sevincini yaşamaq yox, vəziyyətdən çıxış yolu axtarmağa başladı. Digər tərəfdən də silahlı qüvvələrin torpaqların deyil, ayrı-ayrı şəxslərin maraqlarının müdafiəçisinə çevrilmələri ərazilərimizin bir-birinin ardınca işğalına yol açırdı. Belə dözülməz, ağır vəziyyətdə xalq öz xilaskarını axtardı, həyatını xalqına, dövlətinə həsr edən ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışını təkidlə tələb etməklə Azərbaycanın gələcək inkişafının təməlini qoydu. Ümummilli lider Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini tarixi nailiyyətimiz kimi dəyərləndirərək, onu qorumağın, daha da möhkəmləndirməyin hər bir Azərbaycan vətəndaşının borcu olduğunu bildirdi. Dahi şəxsiyyətin hakimiyyətə qayıdışından sonrakı dövr Azərbaycan tarixinə dirçəliş, yüksəliş dövrü kimi yazıldı. Ulu öndər Heydər Əliyev bildirmişdir: "Biz nadir bir dövlətçilik irsinin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan dövlətimizin həm dününinə, həm bugününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır".

Ümummilli liderin Azərbaycan xalqı, dövləti qarşısındakı xidmətlərindən bəhs edərkən onun xilaskarlıq missiyası daha qabarıq şəkildə diqqətə çatdırılır. Onun uğurlu daxili və xarici siyasəti sayəsində müstəqil Azərbaycan yenidən quruldu, yaşadı, hər bir sahədə başqa dövlətlər üçün nümunə oldu. Ümummilli liderin gərgin fəaliyyəti nəticəsində 1994-cü ilin mayın 12-də atəşkəs sazişinin imzalanması inkişafda yeni bir mərhələnin əsasını qoydu. Bu addım bir daha Azərbaycanın dünyaya sülhsevər ölkə olduğunu nümayiş etdirdi, eyni zamanda digər sahələrin inkişafı üçün yol açdı. Hər bir ölkənin inkişafında iqtisadi amilin rolunu önə çəkən ümummilli lider Heydər Əliyev bu sahənin inkişafında neft amilinin rolunu önə çəkərək, bu fikri xüsusi qeyd etmişdir ki, heç bir ölkə qarşılıqlı təcrübə mübadiləsi olmadan, səylər birləşdirilmədən təkbaşına iqtisadiyyatını inkişaf etdirə bilməz. Məhz ulu öndərin uzaqgörənliyi sayəsində 1994-cü il sentyabrın 20-də tarixə "Əsrin müqaviləsi" kimi daxil olan ilk neft müqaviləsi imzalandı. Azərbaycan bu addımı ilə dünyaya siyasətində müstəqil, eyni zamanda hansı iqtisadi imkanlara malik olduğunu nümayiş etdirdi. Ölkəmizin gələcəyinə inanan dövlətlər, şirkətlər ikitərəfli əlaqələrin qurulmasına və daha da genişlənməsinə səy göstərdilər. Azərbaycan qısa zamanda böyük əməkdaşlıq məkanına çevrildi. Ölkəyə investisiya axını daha da sürətləndi. Bu gün ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcminin 160 milyard dollardan çox olduğunu böyük qürur hissi ilə qeyd ediriksə, təbii ki, bu, düzgün və düşünülmüş siyasətin nəticəsidir.

Azərbaycanın iqtisadi qüdrətinin artması beynəlxalq münasibətlər sistemində yerinə və roluna da öz müsbət təsirini göstərdi. Ulu öndərin hakimiyyətə qayıdışından sonra əsas diqqət göstərdiyi məsələlərdən biri məhz Azərbaycanın ətrafında yaradılan informasiya blokadasını yarmaq oldu. Bu fakt hər kəsə bəllidir ki, müstəqilliyimizin bərpasından sonrakı ilk illərdə erməni yalanlarının ayaq tutub yeriməsində ölkəmiz haqqında məlumatsızlıq böyük rol oynamışdır. Məhz həmin illərdə ölkəmizə qarşı ədalətsiz "907-ci düzəliş"in tətbiq

olunması da ermənilərin bu kimi əsassız təbliğatlarından irəli gəlirdi. Azərbaycana qarşı belə bir ədalətsiz qərarın tətbiq olunmasına nail olan ermənilərin əsas məqsədi ölkəmizi iqtisadi cəhətdən zəiflətmək, bu və ya digər ölkədən asılı vəziyyətə salmaq idi. Amma onların bu cəhdləri də boşa çıxdı. Belə ki, 10 il bu qərarın tətbiqi şəraitində yaşayan Azərbaycan nəinki iqtisadi cəhətdən zəiflədi, əksinə, daha da qüdrətlənərək beynəlxalq maliyyə qurumlarının hesabatlarında ön yerdə dayandı. Ulu öndər Heydər Əliyev hər bir ölkəyə səfərində Azərbaycan həqiqətləri barədə dolğun məlumatlar verir, dünya ictimaiyyətini erməni yalanlarına uymamağa, hadisələri olduğu kimi qəbul edib düzgün qiymətləndirməyə çağırırdı. Azərbaycan dünyanın nüfuzlu təşkilatlarına üzv qəbul olunmaqla həqiqətlərini beynəlxalq aləmə çatdırmaq üçün tribunalar qazandı. Azərbaycan dövlətinin uğurlu xarici siyasəti və eyni zamanda 2001-ci ilin sentyabrın 11-də ABŞ-da baş verən terror aktından sonra Amerika hökuməti "907-ci düzəliş"in ədalətsiz qərar olduğunu etiraf edərək, bu bədnam düzəlişin fəaliyyətinin dondurulması ilə bağlı qərar qəbul etdi. Ötən müddət ərzində hər il həmin qərar yenidən təsdiqlənir. Azərbaycan diplomatiyasının qarşısında dayanan əsas məsələ erməni yalanlarını faktlarla ifşa etmək, əsl həqiqəti dünya ictimaiyyətinə çatdırmaqdır. Müstəqil dövlətimizin bu sahədə qazandığı uğurlar təqdir olunur. Bu da ondan irəli gəlir ki, təbliğatımız yalana deyil, real faktlara əsaslanır.

Azərbaycanın yerləşdiyi coğrafi məkan, malik olduğu zəngin təbii resurslar ona cəlbedici ölkə imicini qazandırıb. Dövlətimizin həyata keçirdiyi siyasətin əsasında Azərbaycanı rəqabət yox, əməkdaşlıq məkanına çevirmək dayanır. Azərbaycanın 1993-cü ildən, yəni ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu istiqamətdə qazandığı uğurlar göz qabağındadır. Ümummilli liderin hər bir xarici ölkəyə səfəri münasibətlərdə yeni mərhələnin başlanğıcını qoydu. Həmin siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycan dünya birliyində özünə layiqli yer tutmaqla əsl söz sahibinə çevrildi. Təbii ki, bu uğurlarda dövlətimizin müstəqil siyasəti də böyük rol oynayır. Müstəqillik yalnız atributları ilə ölçülmür. Müstəqil dövlət, təbii ki, siyasətində müstəqil olmalıdır. Bu fikir dünyanın iri dövlətlərinin rəsmiləri tərəfindən hər zaman qeyd olunur ki, yalnız müstəqil iqtisadi siyasət yeridən dövlət müstəqil ola bilər. Azərbaycan bu baxımdan nümunəvi ölkə sayılır. "Əsrin müqaviləsi"nin imzalanması zamanı bütün təzyiqlərə baxmayaraq, ulu öndər Heydər Əliyev Bakı-Tbilisi-Ceyhan marşrutunu irəli sürüb, bu qərarın dəyişməz olduğunu bildirməklə Azərbaycanın siyasətində müstəqil olduğunu bir daha dünya dövlətlərinə bəyan etdi.

Ən ağır problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində də ölkəmizin müstəqil siyasəti göz qabağındadır. Mövqeyimizin dəyişməz olduğunu bəyan edən rəsmi Bakı daim dünya dövlətlərini, beynəlxalq təşkilatları hadisələrin mahiyyətini düzgün qiymətləndirməyə, ədalətli mövqe nümayiş etdirməyə çağırır. Bu gün dünya haqqın, ədalətin kimin tərəfində olduğunu görür, münaqişənin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə tərəfdar olduğunu bildirir. Beynəlxalq təşkilatların qərar və qətnamələrində də Azərbaycanın ədalətli mövqeyi dəstəklənir. Məhz bunun nəticəsidir ki, 2011-ci ildə ölkəmiz 155 ölkənin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi. Azərbaycan diplomatiyasının təntənəsi kimi dəyərləndirilən bu mühüm hadisə ən mühüm problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli yolunda da mühüm addım oldu. "Biz ilk növbədə qurumda ədaləti müdafiə edəcəyik" söyləyən Prezident İlham Əliyevin bu qətiyyəti Azərbaycan dövlətinin prinsipial mövqeyinə, beynəlxalq hüquqa olan hörmətə əsaslanırdı. Son iki il ərzində BMT Təhlükəsizlik Şurasında sədrlik edən Azərbaycan uğurlu fəaliyyəti ilə bu reallığı da ortaya qoydu ki, xarici siyasətini əməkdaşlıq üzərində qurması ona böyük dostlar düşərgəsi qazandırıb.

Dahi şəxsiyyətin həyata keçirdiyi siyasətin önündə diaspor quruculuğu prosesinin öndə saxlanılması da xüsusi qeyd olunur. Diasporu bir dövlətin xaricdəki varlığı kimi dəyərləndirən ulu öndər Heydər Əliyev dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın birliyinə nail olmaq üçün ilk növbədə həmin dövlətlərdə Azərbaycan mərkəzlərinin, cəmiyyətlərinin yaradılmasına nail oldu. Sonra ulu öndər onların vahid mərkəzdən idarə olunmalarının vacibliyi məsələsini gündəmə gətirərək, Bakıda Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi təşəbbüsü ilə çıxış etdi. 2001-ci ilin noyabrın 9-10-da həmin istəyini reallaşdıran ümummilli lider Heydər Əliyev soydaşlarımızı Azərbaycanın daha da qüdrətlənməsi, çiçəklənməsi üçün birliyə çağırdı. Həmin qurultay diaspor işinin sürətləndirilməsində təkanverici qüvvə rolunu oynadı. Son on ildə ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən dövlət başçısı İlham Əliyevin siyasətində də bu sahəyə diqqət xüsusi yer tutur. 2006 və 2011-ci illərdə dünya azərbaycanlılarının II və III qurultaylarının keçirilməsi də bunun təsdiqidir. Keçirilən hər qurultay ötən dövrdə əldə olunan uğurlara bir baxış və qarşıdakı illər üçün prioritetlərin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Günbəgün güclənən, qüdrətlənən Azərbaycan harada yaşamasından asılı olmayaraq bütün soydaşlarımızın qürur mənbəyidir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan düşünülmüş və məqsədyönlü siyasəti Prezident İlham Əliyevin uğurla davam etdirməsi

Azərbaycanın gələcəyinə inamı daha da artırır, ölkəmiz bütün sahələrdə inamla irəliləyərək, dünya birliyində yerini, rolunu və mövqelərini möhkəmləndirir.

Təbii ki, bu uğurlarımızda demokratik islahatlar və onların uğurlu nəticələri də az rol oynamayıb. Ulu öndər Heydər Əliyev iqtisadi və siyasi islahatların paralel şəkildə aparılmasını, bir sözlə, demokratiya yolunu əsas xətt kimi önə çəkmiş, bu istiqamətdə uğurlu addımlar atmışdır. Azərbaycanın 2001-ci ildə dünyanın nüfuzlu təşkilatı olan Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması da demokratik prinsiplərə sadiqliyini sözdə deyil, əməldə sübut etməsinin təsdiqidir. Ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması, azad mətbuatın inkişafı, beynəlxalq standartlara uyğun seçkilərin keçirilməsi üçün möhkəm qanunvericilik bazası mövcuddur və ilbəil təkmilləşdirilir. Konstitusiyamızın maddələrinin üçdə iki hissəsi insan hüquq və azadlıqlarının qorunmasına xidmət edir. Vətəndaşlara bütün azadlıqlar verilib. 2003-cü ilin mayında Azərbaycan hökumətinin Avropa Şurası Venesiya Komissiyası və ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu ilə birgə əməkdaşlığı nəticəsində qəbul olunan və zaman-zaman təkmilləşdirilən Seçki Məcəlləsi ölkədə seçkilərin dünya standartlarına uyğun keçirilməsini şərtləndirir. Bu gün Azərbaycanın seçki təcrübəsi digər ölkələrə nümunə göstərilir. Ölkəmizdə çoxpartiyalı sistem yaradılıb. Siyasi partiyaların, ictimai birliklərin normal fəaliyyətini təmin edən qanunvericilik bazası mövcuddur. Təbii ki, bütün bunlar Azərbaycan dövlətinin demokratik prinsiplərə verdiyi önəmdən irəli gəlir. Ulu öndər Heydər Əliyev bildirirdi ki, demokratiya yolu bizim strateji kursun mahiyyətini təşkil edir, heç bir qüvvə bizi bu yoldan döndərə bilməz. Dahi şəxsiyyətin bu kimi fikirlərinin davamı olaraq möhtərəm Prezident İlham Əliyev bildirib ki, demokratikləşmə prosesi sadəcə bir şüar, niyyət deyil, ölkənin hərtərəfli inkişafı üçün əsasdır.

Təbii ki, bütün prioritetlərin əsasında qüdrətli respublikanın inkişaf perspektivləri - düşünülmüş, dünya siyasətinə uyğunlaşdırılan balanslaşdırılmış xarici siyasət, ölkə daxilində sabitliyin təminatı, dövlətçiliyin möhkəmlənməsi, bazar iqtisadiyyatı yolunu seçməklə malik olduğumuz təbii ehtiyatlardan xalqın mənafeyinin və rifah halının yaxşılaşdırılması naminə səmərəli istifadə, insan hüquq və azadlıqlarının qorunması, çoxmillətli respublika olan Azərbaycanın tolerant dövlət kimi bütün azərbaycanlılar üçün vətən olması və digər bir-birindən məsuliyyətli vəzifələr dayanır.

Dahi şəxsiyyət Heydər Əliyev eyni zamanda bu gün sıralarında 600 mindən artıq üzvü birləşdirən, nəinki ölkənin, regionun aparıcı siyasi təşkilatına çevrilən Yeni Azərbaycan Partiyasının yaradıcısıdır. Partiyanın hansı şəraitdə, hansı zərurətdən yarandığı məlumdur. Məhz o dövrün xarakteristikası fonunda qeyd edilir ki, YAP-ın yaradılması zamanın tələbi, xalqın istəyi idi. 91 nəfər Azərbaycan ziyalısının ulu öndər Heydər Əliyevə "Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir" müraciəti ölkə ictimaiyyəti arasında böyük canlanma yaratdı. Bu, yalnız 91 nəfərin deyil, ölkədə baş alıb gedən özbaşınalıqdan, siyasi gərginlikdən səbir kasası dolmuş bütöv bir xalqın ulu öndər Heydər Əliyevə böyük ümidinin ifadəsi idi. Müraciətdə deyilirdi: "İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respubilkada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəyəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın, demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və ya yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrdən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu dolduraraq, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə biləcək. ... Əgər bu partiyanın bünövrəsini Sizin kimi güclü dövlət xadimi qoyarsa, o, uzun illər xalqımızın bir neçə nəsil üçün də siyasi yetkinlik məktəbi olar". Azərbaycan ziyalılarının müraciətinə cavabında müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Yeni Azərbaycan Partiyasının yaradılmasının obyektiv zəruriyyətdən doğduğunu söyləyən ulu öndər Heydər Əliyev bildirmişdir ki, belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində fəal iştirak etməyə hazıram.

Partiyanın yaradılmasından ötən 22 ilə yaxın dövr ərzində əldə etdiyi uğurlara diqqət yetirsək, ulu öndər Heydər Əliyevin böyük qətiyyətlə söylədiyi bu fikirlərin reallıqda öz əksini tapdığının şahidi olarıq. Son on ildə Prezident İlham Əliyevin rəhbərliyi altında partiya daha da inkişaf etmiş, sıralarını kəmiyyət və keyfiyyət baxımından möhkəmləndirmişdir. Partiyanın ölkədə keçirilən bütün seçki proseslərində uğur qazanması da ulu öndər Heydər Əliyev ideyalarına sədaqətdən, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə inamdan qaynaqlanır. Yeni Azərbaycan Partiyası qələbələr partiyası kimi nüfuz qazanıb. Partiyanın atdığı hər addımda siyasi xəttinə sadiqliyi milyonların sevgisini qazanmasında stimuldur. Dövlətə, xalqa xidməti fəaliyyətinin

önündə saxlayan YAP hər zaman uğurlarımızın davamlılığına öz töhfəsini verməyə çalışır. Partiyanın V qurultayında Prezident İlham Əliyevin böyük qətiyyətlə söylədiyi "Qürur hissi ilə deyə bilərəm ki, bugünkü Azərbaycan ulu öndərin görmək istədiyi kimi inkişaf edir, onun qoyduğu yolla gedir, güclənir, möhkəmlənir və çox güclü regional amilə çevrilibdir" fikirləri də keçilən yolun təhlili və ümumiləşdirilmiş ifadəsidir.

Ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti, xalqı qarşısındakı xidmətlərinin miqyası o qədər genişdir ki, onları bir yazıda əhatə etmək qeyri-mümkündür. Reallıq budur ki, müstəqil Azərbaycan ulu öndər Heydər Əliyevin qoyduğu möhkəm təməl üzərində inamla inkişaf edir, yüksək zirvələr fəth edir. Qarşıdakı illərin hədəfləri hər bir Azərbaycan vətəndaşında qürur hissi yaradır. Məqsəd Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görməkdir. Prezident İlham Əliyev 2013-cü ildə keçirilən andiçmə mərasimində "Gələcəyə nikbinliklə baxmaq üçün kifayət qədər amil vardır" söyləyərək fikrini belə əsaslandırmışdır: "Son on ilin təcrübəsi göstərir ki, "xalq", "millət" anlayışları ön planda olanda istənilən problem öz həllini tapa bilər".

**“Azərbaycan”.-**2014.-1 may.-N 89.-S.3.

# HEYDƏR ƏLİYEVİN 1960-1970-CI İLLƏRDƏ ERMƏNİ-DAŞNAK QÜVVƏLƏRİNİN AZƏRBAYCAN ƏLEYHİNƏ YÖNƏLMİŞ MƏKRLİ PLANLARINA QARŞI QƏTİYYƏTLİ MÜBARİZƏSİ

**A.VAQİFLİ,**
Milli Təhlükəsizilk Nazirliyinin əməkdaşı

**1813-cü ildə Gülüstan, 1828-ci ildə isə Türkmənçay müqavilələrinin imzalanması ilə Azərbaycanın tarixi və əzəli torpaqlarının bölünməsi başa çatmadı, əksinə ərazilərimizin zorən qoparılması prosesi düşmən qüvvələrin himayəsi, təhriki və bilavasitə iştirakı ilə ardıcıl xarakter aldı və davam etdi. Bir çox qonşu ölkələrdə yaşayan ermənilərin məqsədli şəkildə Azərbaycan torpaqlarına köçürülməsinə başlandı və azərbaycanlıların dədə-baba yurdlarında “erməni vilayəti” adlandırılan qondarma inzibati ərazi bölgüsü yaradıldı. Daha sonra isə “böyük Ermənistan” xülyası təbliğ olunmağa başlanıldı və bu məqsədlə kökündə vəhşət və terrorun dayandığı müxtəlif erməni təşkilatları meydana çıxdı. Bununla da erməni-daşnak qüvvələrinin Azərbaycan xalqının məhv edilməsi və onun torpaqlarının qəsb olunması istiqamətində daha məkrli və məqsədyönlü siyasətinin bünövrəsi qoyuldu.**

## Ədalət gözləyən tariximiz

XIX əsrin əvvəllərindən başlayaraq işğalçı müharibələr nəticəsində Azərbaycan iki hissəyə bölündükdən sonra çar Rusiyasının tərkibinə daxil edilən Şimali Azərbaycana, tarixi etnik türk və müsəlman torpaqlarına, xüsusən Naxçıvana, İrəvana və Yelizavetpol quberniyalarının dağlıq ərazilərinə, indiki Dağlıq Qarabağa əsrlər boyu formalaşmış demoqrafik vəziyyəti pozan, əlverişli iqtisadi imkanlar qazanaraq milli münasibətləri kəskinləşdirən, Cənubi Qafqazda imperiya-müstəmləkəçilik siyasətinin aləti olan və “qoy özümə yer edim, gör sənə nə edərəm” prinsipini bayraq edən ermənilər tərəfindən az keçməmiş azərbaycanlılara, eləcə də burada yaşayan digər xalqlara, o cümlədən kürdlərə, ləzgilərə, avarlara, ruslara, yəhudilərə, talışlara və digərlərinə qarşı amansız qətliamlar törədilmişdir.

Sonrakı dövrlərdə, xüsusilə 1905-1907 və 1917-1918-ci illərdə xarici qüvvələrin və siyasi dairələrin köməyi ilə erməni-daşnak silahlı birləşmələri tərəfindən Azərbaycan torpaqlarının demək olar ki, hər tərəfində soydaşlarımıza qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar, soyqırımları həyata keçirildi. Bu qırğınlara bir çox xarici ölkələrlə yanaşı, Rusiya imperiyası tərəfindən göz yumulur, hətta rəvac verilirdi. Qısa müddət ərzində erməni-daşnak qaniçənlərinin hərbi təcavüzləri və terrorları nəticəsində yüz minlərlə azərbaycanlı əhalisi kütləvi qırğına məruz qaldı, zorla öz torpaqlarından didərgin salındı, əmlakları talan olundu.

Çar Rusiyasında sosial-siyasi proseslər gərginləşdiyi bir zamanda, xüsusən 1905-1907-ci illərdə, Birinci Dünya müharibəsi dövründə erməni-daşnak silahlı dəstələri əvvəlcə imperiyanın müxtəlif yerlərində hərbi əməliyyatların gedişində, daha sonra isə 1918-1920-ci illərdə qədim Azərbaycan torpağı olan indiki Ermənistanın ərazisində, Şərqi Anadoluda, Cənubi Azərbaycanda, Borçalıda türklərə, azərbaycanlılara, müsəlmanlara qarşı soyqırımları törətdilər. Birinci Dünya müharibəsi illərində Bakı, Naxçıvan, Gəncə, İrəvan və digər şəhərlərə rus-türk cəbhəsindən qaçqın adı ilə gələn və yerləşdirilən silahlı ermənilər sonrakı illərdə həmin soyqırımlarda xüsusi rol oynadılar.

Yalnız 1918-ci ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və sonrakı fəaliyyəti nəticəsində bu amansız qırğınların, qətliamların qarşısını az da olsa almaq mümkün oldu. Qeyd etmək yerinə düşərdi ki, həmin illərdə ermənilərin bir hissəsi bolşeviklərlə əməkdaşlığa girərək bu qırğınları törətdiyi bir vaxtda, digər bir hissəsi də ehtiyat variant kimi, yəni bolşeviklərin hakimiyyəti uzunmüddətli olmayacağı təqdirdə hər ehtimala qarşı digər xarici qüvvələrlə danışıqlar aparır və hər iki qrup öz hərəkətlərini bir-biriləri ilə əlaqəli şəkildə qururdular.

Zaqafqaziyada bolşevik hakimiyyəti bərqərar olduqdan sonra da ermənilər öz çirkin ambisiyalarından və niyyətlərindən əl çəkməyərək yaranmış şəraitdən məharətlə istifadə etməyə nail oldular. Belə ki, daşnakların fəaliyyəti və bolşevik diktaturasının təzyiqləri nəticəsində 1920-ci ildə Azərbaycanın bütövlükdə Zəngəzur vilayəti və ayrı-ayrı bölgələrindən qoparılmış ərazilər onsuz da əzəli Azərbaycan torpaqlarında süni yaradılmış qondarma Ermənistan SSR-yə “hədiyyə” edildi. Bu, Azərbaycan üçün İrəvan şəhərinin Ermənistana verilməsindən sonra ən böyük torpaq itkilərindən biri idi.

Arayış: “1918-ci il mayın 29-da Həsənbəy Ağayevin sədrliyi ilə Müsəlman Milli Şurasının ikinci iclası keçirildi. İclasda xalqımız üçün taleyüklü bir məsələ olan və bu gün də müxtəlif fikirlər doğuran İrəvanın siyasi

mərkəz kimi Ermənistana güzəşt edilməsi məsələsi müzakirə olundu. Şuranın üzvü Fətəlixan Xoyski Ermənistanla Azərbaycan arasında sərhəd məsələləri barədə Şuranın üzvləri ilə Ermənistan Milli Şurasının üzvləri arasında aparılmış danışıqlar haqqında məlumat verdi. F.Xoyski qırğınların dayandırılması məqsədilə, məruzəsində ermənilərin özlərinin siyasi mərkəzlərini yaratmaq üçün İrəvanın Ermənistana güzəştə gedilməsinin qaçılmaz olduğunu bəyan etdi. Bu məsələ ilə bağlı X.Xasməmmədov, M.Y.Cəfərov, Ə.Şeyxülislamov və M.Məhərrəmov çıxış edərək İrəvanın Ermənistana güzəştə gedilməsinin tarixi zərurət, lakin bizim üçün qaçılmaz acı bir həqiqət olduğunu qeyd etdilər. 28 nəfər Şura üzvündən 16 nəfəri bu təklifin lehinə, bir nəfər əleyhinə səs verdi, 3 nəfər isə bitərəf qaldı (Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA) – s. 1, iş 1, vərəq 51-52., Paşayev A.Ə. “XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar”, Bakı: Çaşıoğlu, 2011, səh.104).

Maraqlıdır ki, 1918-ci ilin mayına olan məlumatlara əsasən qədim, tarixi-etnik Azərbaycan torpaqlarında qurulmuş Ermənistan 400 min əhalisi olan iki qəzadan – İrəvan və Üç kilsə qəzalarından ibarət idi ki, onun da əhalisinin yarıdan çoxu müsəlman idi (Bolğşaə Sovetskaə Gnüiklopediə – t.I, t III, M. 1926, c. 437).

Azərbaycan sovetləşdikdən sonra bolşevik cildində respublikaya qayıdan erməni daşnakları müxtəlif partiya və hakimiyyət orqanlarında məsul vəzifələr tutaraq antiAzərbaycan fəaliyyətlərini yeni siyasi quruluşun şüarları ilə pərdələnmiş halda gizli və qəddarlıqla davam etdirirdilər. Sovet-bolşevik hakimiyyəti qurulduqdan sonra xaricə qaçmış yüzlərlə daşnakın nəinki Ermənistana, hətta Azərbaycana qayıtmasına 1920-1930-cu illərdə icazə verilsə də, mühacir azərbaycanlıların müvafiq istəkləri yerinə yetirilmədi. Məsələn, hələ RK(b)P MK siyasi bürosunun 1923-cü il 22 noyabr tarixli iclasında (protokol ¹47) SSRİ xalq xarici işlər komissarının müavini M.Litvinovun təqdimatı əsasında Türkiyədən olan qaçqın ermənilər haqqında məsələ müzakirə edildi. Qərarda 10 min nəfər ermənінin Türkiyədən SSRİ hüdudlarında qəbul olunmasına etiraz edilmir, eyni zamanda bu işin dövlət büdcəsi tərəfindən maliyyələşdirilməməsi qeyd olunurdu. Nəticədə gələn ermənilərin bir hissəsi Azərbaycana yerləşdirildi (Rossiyskiy qosudarstvennıy arxiv soüialğno-politiçeskoy istorii (RQASPİ), f 17, op.3, d.395, l.1).

1920-ci ilin aprel işğalına qədər Azərbaycan ərazisi, əhalisi, hətta dünyanın söz sahibi olan aktorları səviyyəsində tanınan sərhədlərə malik idi, milli hökumətini də qura bilmişdi. Sovet dövründə isə Azərbaycan əslində SSRİ-nin tərkibində müstəqilliyi və müttəfiqliyi formal olan on beş sovet respublikalarından biri idi. Sözsüz ki, belə bir şəraitdə Azərbaycanın dövlət suverenliyindən söhbət gedə bilməzdi. Çünki hətta bəzən məhəlli səviyyədə həll oluna biləcək məsələlər üçün də göstərişlər Moskvadan verilirdi.

SSRİ-nin tərkibinə qatıldıqdan sonra Azərbaycanda aparılan məqsədyönlü siyasi-ideoloji fəaliyyət və təbliğat nəticəsində ermənilər tərəfindən on illərlə xalqımıza qarşı törədilmiş amansız qətliamların və soyqırımların azərbaycanlıların yaddaşından silinməsi, dövlət arxivlərdən isə bunu sübut edən tarixi-faktoloji sənədlərin məhv edilməsi siyasəti həyata keçirilirdi. Digər tərəfdən, erməni-daşnak qüvvələri hiyləgərliklə öz havadarlarının bilavasitə köməyi ilə mənfur ilhaqçılıq siyasətlərinin gələcəkdə davam etdirilməsi üçün zəmin yaradırdılar. Azərbaycanın Qarabağ və ətraf ərazilərinə ermənilərin köçürülməsi də planlı şəkildə davam etdirilirdi. Nəhayət, 1923-cü ildə Azərbaycanın tərkibində əndrabazi Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) adlı ərazi vahidi yaradıldı.

Ermənilər bundan sonra da tədbirli şəkildə fəaliyyətlərini davam etdirərək, istər keçmiş ittifaq rəhbərliyi yanında, istərsə də bəzi xarici ölkələrdəki siyasi dairələrdə cidd-cəhdlə özlərinin mifik yazıq və məzlum obrazlarını yaradır, çirkin niyyətlərini həyata keçirmək məqsədilə münbit şəraitin yetişməsini gözləyirdilər.

Belə bir böyük imkanı erməni-daşnak qüvvələri İkinci Dünya müharibəsi qurtardıqdan sonra əldə etməyə nail oldular. Azərbaycan xalqı əsassız erməni iddiaları ilə üz-üzə qaldı. Erməni-daşnak başbilənləri Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürməyə başladılar. Ermənistan KP MK katibi Q.Arutunov 1945-ci ilin noyabr ayında Moskvaya məktub yazaraq Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsini qaldırdı. (Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi (ARSPİHDA), – f.1, siy.169, iş 249, v.5-14. M.Qasımlı. “Heydər Əliyev – istiqlala gedən yol”, Bakı Universiteti nəşriyyatı, 2006, səh.59).

Lakin bu plan baş tutmadı. Belə olduqda erməni dairələri başqa bir varianta əl atdılar. Onlar xaricdəki ermənilərin repatriasiyasına – Ermənistana qayıtmasına icazə verilməsini mərkəzdən xahiş etdilər. O vaxtlar bu məsələlərin həllində “soyuq müharibə”nin başlamasının və vüsət almasının da müəyyən mənada rol oynadığını desək yanılmarıq. Belə ki, daim Azərbaycana və xalqımıza dəstək olan Türkiyə Cümhuriyyətinin ərazisi istiqamətindən Şimali Alyansın – NATO-nun özünün cənub sərhədlərinə yaxınlaşdığını görən Sovet rəhbərliyi həmin istəyi həvəslə yerinə yetirdi. Heç şübhəsiz, SSRİ rəhbərliyində çalışan erməni siyasi nomenklaturası da bu işdə mühüm rol oynayırdı. Beləliklə, erməni-daşnak dairələri qarşılarına qoyduqları üç vəzifədən birini reallaşdırdılar. Bu repatriasiya oyununda vaxtilə qaçmış daşnakların və digər erməni “təşkilatlarının” üzvlərinə də Ermənistana köçməyə icazə verildi.

Bundan sonra məkrli planın ikinci mərhələsinə rəvac verildi. Belə ki, "köçürülən ermənilərin yerləşdirilməsi üçün lazımi şərait olmadığından" Ermənistandakı tarixi torpaqlarında, xüsusən Türkiyə ilə sərhəddə yaşayan azərbaycanlıların məcburi köçürülməsi məsələsi qaldırıldı. SSRİ rəhbərliyi bu "zərurəti" də nəzərə aldı.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 [1]-li və 1948-ci il 10 mart tarixli 754 [1]-li qərarlarına uyğun olaraq azərbaycanlılar 1948-1953-cü illərdə planlı şəkildə, lakin başqa, təsərrüfat quruculuğu adı altında Azərbaycanın iqlim cəhətdən əlverişsiz olan aran rayonlarına köçürüldülər. 1948-ci ildə 24 min 631 nəfər, 1949-cu ildə 54 min 373 nəfər, 1950-ci ildə 65 min 650 nəfər azərbaycanlı tarixi-etnik torpaqlarından – Ermənistandan deportasiya edildi (Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA) – f.28, siy.1, iş 185, v.1-8, M.Qasımlı. "Heydər Əliyev – istiqlala gedən yol", Bakı Universiteti nəşriyyatı, 2006, səh.59).

Beləliklə, 1917-ci ilin sonlarından 1918-ci ilin mart ayınadək İrəvan quberniyasında azərbaycanlılara qarşı kütləvi soyqırımı həyata keçirərək 198 kəndi yerlə-yeksan edən, əhalisini qaçqına çevirən erməni terrorçu dəstələrinin fəaliyyətini artıq başqa formada və üslubda davam etdirən erməni-daşnak kommunistləri sovet hakimiyyəti illərində istəklərinin yerinə yetirilməsinə rəsmi qərarlarla nail oldular. Ermənistanın əksər rayonlarında yaşayan azərbaycanlı əhalinin doğma torpaqlarından zorla Azərbaycanın "Kür-Araz" ovalığına köçürülməsi barədə qərarın qəbul edilməsi ilə Azərbaycan xalqının faciəvi kütləvi deportasiyası başladı. Beynəlxalq humanitar hüquq normalarına, xüsusilə Beynəlxalq Cinayət Məhkəməsinin Nizamnaməsinin müddəalarına əsasən – "Forced-migration of people" – "Əhalinin zorla köçürülməsi", "İlleqal deportation or resettlement" – "Qanunsuz deportasiya və ya köçürülmə" kimi hərbi cinayətlər hesab edilən, heç bir mənəvi və bəşəri çərçivəyə sığmayan bu amansız zorakılıqlar nəticəsində qısa müddət ərzində 150 mindən çox azərbaycanlı öz yurdundan didərgin salındı. Deportasiya elə vəhşiliklə həyata keçirilirdi ki, hətta azərbaycanlılar evlərindən heç bir əşya götürməyə macal tapmadan doğma yurdlarını tərk etməyə məcbur edilirdilər.

Yeni erməni talanları ilə planın üçüncü mərhələsi başlandı.

SSRİ-dəki erməni-daşnak dairələri və siyasi nomenklaturası Mərkəzi rəhbərliyin yanında müxtəlif təbliğat və təşviq işləri aparmaqla yanaşı, ikili oyun oynayırdılar. Onlar SSRİ ərazisində təxribatlar yaratmaq məqsədilə bir çox xarici ölkələrin siyasi mərkəzləri və xüsusi xidmət orqanları ilə gizli şəkildə əməkdaşlıq edir, onlardan maliyyə və digər yardımlar alırdılar (AR MTN arxivi).

"Soyuq müharibənin" qızışdığı bir dövrdə xarici ölkələrin siyasi dairələri və xüsusi xidmət orqanları üçün isə SSRİ ərazisində bu təxribatların əsas hədəfinin kim olduğu və nəyə qarşı yönəldiyinin mahiyyətinin elə də əhəmiyyəti yox idi. Əsas məqsəd sovetlər ittifaqını zəiflətmək idi. Elə bu baxımdan da ən yaxşı alət ermənilər hesab olunurdu.

Eyni zamanda, bəzi beynəlxalq dairələrin dəstəyi ilə ermənilər həmişəki kimi özləri barədə yazıq, məzlum xalq imici yaratmaq istiqamətində fasiləsiz fəaliyyətlərini davam etdirirdilər. Erməniçiliyin güclü təbliğatı nəticəsində hər bir əlverişli imkanda azərbaycanlılara qarşı törədilən vəhşiliklər ermənilərə qarşı törədildiyi kimi təqdim olunurdu. Digər tərəfdən, nəinki SSRİ-nin, hətta Azərbaycanın bir çox dövlət orqanlarında ermənilər vəzifələrə irəli çəkilir, xalqın taleyi onların ixtiyarına buraxılırdı. Həmin ermənilər onlara həvalə olunmuş vəzifə səlahiyyətlərindən sui-istifadə edərək əl altından məkrli məqsədlərini tədricən həyata keçirir, Azərbaycan xalqının vətənpərvər, ziyalı nümayəndələrini, say-seçmə oğul və qızlarını müxtəlif adlarla şərləyərək məhv edir, təcavüzkar və qəsbkar planlarının realizəsi üçün yeni-yeni zəmin hazırlayırdılar.

Həmin dövrdə ermənilərin təbliğatının bir hissəsini də tarixin saxtalaşdırılaraq saxta erməni tarixinin yaradılması, azərbaycanlıların vəhşi, barbar bir millət kimi təqdim edilməsi istiqamətində müxtəlif səpkili əsərlərin yazılması, bu yalanların reallıq kimi bilərəkdən orta məktəb dərsliklərinə salınmasının təşkili, bununla da planlarının növbəti mərhələsini həyata keçirmək məqsədilə erməni gəncləri arasında ifrat millətçiliyin və düşmənçiliyin təbliğ edilməsi idi. Azərbaycan isə bu xain niyyətlərdən xəbərsiz kimi bütün səviyyələrdə erməni xalqı ilə qardaşlığı tərənnüm edən təbliğatın aparılmasına məcbur edilirdi.

Erməni-daşnak qüvvələri öz təbliğatlarının müəyyən nəticələr verməsindən və SSRİ rəhbərliyi tərəfindən onların işlərinə heç bir maneçiliyin olmamasından, eyni zamanda müəyyən xarici dairələrin yardımından ruhlanaraq, 1950-ci ilin sonlarından etibarən azərbaycanlılara qarşı yeni təxribatlar dalğasına başlamaq qərarı verdilər. Əsas məqsəd isə qısa müddət ərzində azərbaycanlılarla ermənilər arasında milli zəmində nifaq salmaqla, havadarlarının dəstəyi ilə soydaşlarımızın yenidən zorla doğma torpaqlarından qovulmasını təşkil etmək, Naxçıvan, Qarabağ və ətraf əraziləri Ermənistana birləşdirmək kimi geniş bir plan dayanırdı. Ən acınacaqlısı isə bu idi ki, təxribatlara nəinki Ermənistanda, hətta Azərbaycanın müxtəlif bölgələrində də start verilmiş, bunun üçün ən ağla-gəlməz forma, metodlardan və şəxslərdən istifadə edilmişdir (AR MTN arxivi).

1959-cu il oktyabrın 12-də Gəncə şəhərində naməlum şəxslər tərəfindən erməni dilində anonim vərəqələr yayılmağa başladı. Vərəqələrdə erməni milliyyətindən olan şəxsləri işə çıxmamağa çağırmaqla yanaşı, azərbaycanlılara qarşı nifrət, kin və böhtan xarakterli çağırışlar səslənirdi.

Aparılmış yoxlama tədbirləri zamanı məlum olur ki, həmin vərəqələr 1927-ci ildə Xocavənd (keçmiş Martuni) rayonunda anadan olan, cəmi 8 sinif bitirən, Gəncə şəhərində tikinti avadanlıqları zavodunda fəhlə işləyən, milliyyətcə erməni Arakelyan Arutyun Ervandoviç tərəfindən hazırlanaraq yayılması təşkil edilib. A.Arakelyan dövlət təhlükəsizlik orqanlarının əməkdaşları tərəfindən saxlanılır. O, dindirilərkən vərəqələri öz təşəbbüsü ilə hazırladığını və yaydığını bildirir. Həmin vaxt mərkəzi hakimiyyət “bütün xalqların doğma vətəni olan – sovetlər ölkəsi”ndə milli zəmində hər hansı məsələnin səs-küyə səbəb olmasında maraqlı deyildi. Buna görə A.Arakelyan profilaktik söhbət edildikdən sonra sərbəst buraxılır.

1962-ci ilin əvvəllərində Xankəndidə ermənilərlə azərbaycanlılar arasında milli zəmində qarşıdurma yaratmaq məqsədilə naməlum şəxslər tərəfindən şayiələr yayılır ki, Xankəndidə yerləşən tikiş fabriki Şəki İpək Kombinatının, avtobaza isə Ağdam şəhər avtobazasının tabeliyinə verilir. Guya bu məsələlər erməni əhaliyə qarşı yönəlib. Buna görə qeyd edilən müəssisələrdə işləyən ermənilər kütləvi iğtişaşlara və azərbaycanlılardan qisas almağa çağırılır. Həmin ildə baş verən digər təxribatda isə Qarabağın erməni əhalisi arasında sorğu keçirilir ki, guya əhalinin böyük əksəriyyəti Qarabağın Ermənistana birləşdirilməsini tələb edir və bu barədə imza toplanılır.

Azərbaycan dövlət təhlükəsizlik orqanları tərəfindən keçirilmiş yoxlama tədbirləri zamanı qeyd olunan şayiələrin 1924-cü ildə Ağdərə (keçmiş Mardakert) rayonunun Qarakənd kəndində anadan olan, həmin vaxt Xankəndi (keçmiş Stepanakert) avtobazasında fəhlə işləyən Asriyan Sergey Saqomonoviç tərəfindən yayıldığı məlum olur. Bununla belə müəyyən edilir ki, o, həqiqətən də Qarabağın Ermənistana birləşdirilməsi məqsədilə imza toplamaqla məşğul olub. Saxlanılarkən ondan 43 nəfərin, o cümlədən Asriyanın qohumları və bir neçə iş yoldaşının adının olduğu siyahı da götürülür.

**Erməni-daşnak qüvvələri ilə mübarizədə dönüş nöqtəsi**

Həmin dövrdə Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşları tərəfindən hadisələrin mənfi məcrada inkişaf etməsinin qarşısının alınması məqsədilə müəyyən müdaxilələr olsa da, bu lazımi səmərə vermirdi. Belə ki, yalnız təxribatı törədən bir neçə şəxs saxlanılır və profilaktik söhbət aparılaraq sərbəst buraxılırdı. Heç şübhəsiz, ermənilərin ifrat millətçilik, daşnak iddialarına qarşı sərt mübarizə mövqeyində duran azərbaycanlı xadimlər, təhlükəsizlik orqanlarının əməkdaşları da var idi.

Belə fədakar insanlardan biri Dövlət Təhlükəsizlik Komitəsində işləyən gənc əməkdaş Heydər Əliyev idi. Heydər Əliyev erməni millətçilərinə qarşı qonşu ölkələrdə və respublikada əməliyyatların keçirilməsində və onların zərərsizləşdirilməsində müstəsna rol oynamışdı (AR MTN arxivi).

Sonralar ulu öndər Heydər Əliyev deyirdi: "30-cu, 40-cı, 50-ci, 60-cı, 70-ci illərdə erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərindən əl çəkməmişdilər. Onlar dəfələrlə çox qızğın fəaliyyətə başlamışdılar. Ancaq onların qarşısı alınmışdır. Mən bunların şəxsən şahidiyəm və bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının təşkilatçısıyam".

Bəli, yalnız ötən əsrin 60-cı illərindən etibarən Azərbaycanda sovet tarixində müstəqil dövlətçiliyə aparan yolda böyük, strateji mərhələnin əsası qoyuldu. Məhz 1965-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini, 1967-ci ildə isə sədri vəzifəsinə Heydər Əliyev təyin edildikdən sonra qeyd olunan məsələlərə münasibət kökündən dəyişdi.

"Heydər Əliyev daxili aləmi və düşüncələrinə görə praqmatik əməliyyatçı, strateq, artıq danışmaqdansa əməli işə üstünlük verən millətsevər bir şəxs idi. Mövcud rejim şəraitində tam səlahiyyət sahibi olmayanadək və hətta səlahiyyət sahibi olanda belə millətsevərlik baxışlarını büruzə vermək faciə ilə nəticələnə bilərdi. Əslində, reallığa əsaslanaraq hərəkət edən bir şəxs idi" (Solovyov V., Klepikova E. "Behind the High Kremlin Walls", p.62-63).

Dahi dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən düşünülmüş siyasət nəticəsində ümumi dövlət təhlükəsizliyi kontekstində, əslində isə Azərbaycan xalqına qarşı yönəlmiş təhlükələrin, gələcək təhdidlərin, baş verən proseslərin əsl mahiyyəti, onu qidalandıran və təmin edən amillər dərindən öyrənilir, təhlil olunur, adekvat tədbirlər görülməsinə çalışılırdı. Çəkinmədən və qətiyyətlə ittifaq rəhbərliyinə ermənilərin separatçılıq və qəsbkar niyyətləri barədə açıq məlumatlar göndərilirdi.

Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini Heydər Əliyevin Az.SSR KP MK-ya göndərdiyi 26.01.1966-cı il tarixli məktubdan: "Daxil olmuş əməliyyat məlumatına əsasən, Yerevan şəhərində qeyri-qanuni "Erməni gənclər ittifaqı" adlı təşkilat yaradılmışdır. Onların özlərinə məxsus proqram və nizamnamələri var. 1965-ci ilin noyabr ayında Yerevan universitetinin işçiləri olan həmin təşkilatın iki nümayəndəsi Martuni rayon mərkəzinə gələrək orada ezamiyyətdə olan DQMV mərkəzi kitabxanasının metodisti Saakyan Benikom Mixayloviçlə (KP-nin üzvü, Yerevan Universitetinin "Tarix" fakültəsini bitirib)

görüş keçiriblər. Onlar Saakyana həmin təşkilatın 4 nüsxədən ibarət proqram və nizamnamələrini verərək bildirmişlər ki, məxfiliyi qorumaq şərti ilə 200 nüsxə çoxaldaraq Qarabağda yaşayan ermənilərə paylasın, eyni zamanda, təşkilatın yerli nümayəndəliyini yaratsın" (AR MTN arxivi).

Keçirilmiş tədbirlər zamanı məlum oldu ki, həmin təşkilat Sovet İttifaqı Kommunist Partiyasının XXIII qurultayına qədər Dağlıq Qarabağın, Naxçıvanın və Ermənistanın digər "keçmiş torpaqları"nın (Azərbaycanın əlavə bir neçə rayonunun) Ermənistana "qaytarılması" məqsədilə müraciət hazırlamalı və bu barədə erməni əhalisi arasında təbliğat aparmalıdır. Lakin Saakyan saxlanılır və onda olan təxribatçı xarakterli vərəqələr və 4 nüsxədən ibarət təşkilatın proqram - nizamnaməsi götürülür. Saakyan dindirilmə zamanı bildirir ki, Yerevana imtahan verməyə getdiyi zaman orada universitetin müəllim və professor heyəti onu və digər tələbələri Qarabağın Ermənistana birləşdirilməsi üçün təbliğat aparmaq məqsədilə cəlb ediblər. Hətta tələbələrdən biri - Beqlaryan Levon Asikoviçə təbliğatın aparılmasında işini rahatlaşdırmaq məqsədilə avtomobil təşkil olunacağına söz verib. Tapşırığa əsasən, Beqlaryan tətil vaxtlarında Qarabağa gedərək bu istiqamətdə əhali arasında təbliğat aparırdı. Eyni zamanda, məlum olur ki, Saakyan Qarabağda olarkən Arkadi adlı Yerevan şəhər sakini Qarabağa gələrək onunla görüşür və aşağıdakı sənədləri ona verərək, çoxaldılıb yayılmasını tapşırır:

- "Erməni gənclər ittifaqı"nın proqram və nizamnamələri;
- Həmin təşkilatın üzvünün andiçmə mətni;
- "Xorudain Hayostan" (1921-ci ildə buraxılan) qəzetindən çıxarış;
- "Nyu York Türk tələbələri ittifaqı"nın 19 aprel 1965-ci il tarixli məktublarının surəti və "Erməni Gənclər İttifaqı"nın həmin məktublar haqqında rəyləri.

Keçirilən tədbirlər zamanı həmin sənədləri gətirən Ayrapetyan Arkadi Stepanoviç və Matevosyan Spartak Apetnakoviç də saxlanılırlar.

1966-cı ilin mart ayında Xankəndi şəhərində yerləşən 2 saylı orta məktəbin 10-cu sinif şagirdi, eyni zamanda, həmin məktəbin komsomol komitə katibi - 1948-ci il təvəllüdlü Petrosyan Marsel Aykazoviç şagirdlər arasında anti-Azərbaycan əhval-ruhiyyəli təbliğat aparmaqla məşğul olur və bu istiqamətdə ermənilərdən ibarət olan "Gənclər təşkilatı" adlı təşkilat yaradır. Əsas məqsəd DQMV-nin Ermənistana birləşdirilməsi istiqamətində fəaliyyət göstərmək olur. Onlar bu məqsədlə vərəqələr hazırlayaraq 9-10 may tarixlərində Xankəndi şəhərində yaymağa başlayırlar. Qrupun fəallarının qarşısının alınması üçün müvafiq tədbirlər görülür.

1966-cı il sentyabrın 12-də təxribat xarakterli fəaliyyətlərinə görə məlum olan - 1927-ci il təvəllüdlü Tovmasyan Ararat Sirikanoviç, 1937-ci il təvəllüdlü Cavadyan Boris Mamikanoviç və 1937-ci il təvəllüdlü Xaçatryan Robert Sanasaroviç gizlicə Yerevandan Xankəndinə gəlirlər. Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşları bu barədə qabaqlayıcı məlumatlar əldə edirlər və erməni qrupunun üzvləri nəzarətdə saxlanılır. Onlar özləri ilə gətirdikləri vərəqələri yaymağa cəhd göstərərkən yaxalanırlar. Qrupun üzvlərindən aşağıdakılar götürülür:

- Dağlıq Qarabağın erməni əhalisinə təxribat xarakterli müraciət - 28 nüsxədə;
- Şair Silva Kaputikyanın əsərləri - 6 nüsxə;
- "Erməni vətənpərvərlər ittifaqı"nın bütün erməni xalqına müraciəti - 12 nüsxədə;
- "Türklərin ermənilərə qarşı zorakılığı"nın 50 illiyi ilə bağlı şüar - 1 nüsxədə;
- Azərbaycanın siyasi xəritəsi - 1 nüsxədə və s. təxribat xarakterli vərəqələr.

Lakin erməni-daşnak təxribatçıları fəaliyyətlərini nəinki dayandırmır, yeni-yeni forma və metodlardan istifadə edirlər.

1966-cı ilin əvvəllərindən başlayaraq erməni təxribatçıları tərəfindən DQMV və Ermənistanda şayiələr yayılır ki, guya artıq mərkəzi hökumətdə - Sov.İKP MK-da Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə qərar qəbul edilib. Təxribatçılar bununla bağlı vərəqələr yayır və həmin "şad xəbəri" qısa müddətdə bütün erməni əhaliyə çatdırmağı planlaşdırırlar.

Bu barədə AR DTK-dan Az.SSR KP MK-ya göndərilən 17.09.1966-cı il tarixli məktubdan: "Son 10-12 gün ərzində Qarabağda - Moskvada DQMV-nin Ermənistana birləşdirilməsi barədə məsələnin artıq müsbət həll olunması barədə şayiələrin yayılması sürətlənmişdir. Bununla əlaqədar olaraq Sov.İKP MK-nın və sovet hökumətinin ünvanına millətçilər tərəfindən təşəkkür məktubları yazılır və həmin məktublara imzaların toplanması faktları (SMU-41 adlı tikinti idarəsində, Mərkəzi Xəstəxanada, Tibb Texnikumunda və müxtəlif orta məktəblərdə) geniş yayılır" (AR MTN arxivi).

Qeyd etmək lazımdır ki, Heydər Əliyev Azərbaycanın Dövlət Təhlükəsizlik Komitəsinin sədri təyin edildikdən sonra ermənilərin fitnəkar niyyətlərinə qarşı mübarizə daha da gücləndirilir, ulu öndər bu istiqamətdə həyata keçirilən tədbirlərə şəxsən nəzarət edir.

Lakin görülən tədbirlər Heydər Əliyevi tam qane etmirdi. O, yaxşı bilirdi ki, DQMV-də erməni-daşnak qüvvələri ilə effektiv mübarizə aparmaq üçün DTK-nın DQMV üzrə şöbəsinin erməni rəhbərliyi

dəyişdirilməlidir. Bu səbəbdən də ulu öndər dəfələrlə SSRİ Nazirlər Soveti yanında DTK rəhbərliyinə müraciət edərək həmin şöbənin rəisinin dəyişdirilməsini tələb edirdi. Ancaq ermənilər də həmin vəzifəyə azərbaycanlının təyin edilməsinə hər vəchlə mane olurdular. Belə olduğu təqdirdə Heydər Əliyev bu vəzifəyə digər millətin nümayəndəsinin təyin edilməsi məsələsini qaldırır. Sonda AR DTK-da işləyən, öz obyektivliyi və qərəzsizliyi ilə tanınan rus milliyyətindən olan Dmitri Georgiyeviç Bıstrov AR DTK-nın DQMV üzrə şöbəsinin rəisi təyin edilir.

1967-ci ilin illik hesabatı zamanı Heydər Əliyev AR DTK-nın DQMV şöbəsinin rəisi polkovnik Dmitri Bıstrova qeyd olunan hallara qarşı mübarizə tədbirlərinin gücləndirilməsini tapşırır və bu barədə konkret göstərişlər verir. Artıq həmin tapşırıqlar qısa müddət ərzində öz nəticələrini verməyə başlayır.

1967-ci ildə Qarabağda fəaliyyət göstərən cinayətkar ünsürlərdən təşkil olunan və azərbaycanlıların öz doğma yurdlarından qovulmasını təşkil etməyi planlaşdıran milliyyətcə erməni gənclərdən ibarət qrup müəyyənləşdirilərək zərərsizləşdirilir. Həmin qrupun fəaliyyəti əsasən Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi və azərbaycanlıların zor gücünə öz torpaqlarından qovulması üçün geniş təbliğat işinin aparılması, bu məqsədlə təxribat vərəqələrinin hazırlanması, erməni əhalisi arasında yayılmasını və yeni üzvlərin cəlb olunmasını təşkil etmək idi. Həmin ildə təkcə Dağlıq Qarabağda 1200-dən artıq belə vərəqə hazırlanıb yayılmışdı. Qısa müddət ərzində belə vərəqələri hazırlayanlardan 13 nəfər, yayanlardan isə 17 nəfər saxlanıldı.

1967-ci ilin əvvəllərində erməni-daşnak dairələri və təxribatçıları tərəfindən əvvəlcədən hazırlanan plana əsasən Dağlıq Qarabağda milliyyətcə erməni olan Movsesyan soyadlı şəxs qətlə yetirilir. Planın ikinci mərhələsinə uyğun olaraq xüsusi erməni təhrikçilərinin rəhbərliyi altında quduzlaşmış kütlə Movsesyanın ölümü ilə bağlı məhkəmə iclasının keçirildiyi kinoteatrın zalına girərək şübhəli şəxs kimi həmin prosesdə dindirilən 2 azərbaycanlını zorla mühafizəçilərin əlindən alıb xüsusi amansızlıqla öldürürlər. Təqsirləndirilən, lakin sonradan bəraət almış digər azərbaycanlı Zöhrab Məmmədov isə dustaq maşını ilə birlikdə yandırılır. Burada əsas məqsəd hadisələri qızışdırıb milli zəminə yönəltmək, nəticədə azərbaycanlıların bütün Qarabağ ərazisindən köçürülməsini və ərazinin Ermənistana birləşdirilməsinin təməlini qoymaq idi.

Lakin Azərbaycan təhlükəsizlik orqanlarının çevik müdaxiləsi nəticəsində bu hadisələrin qarşısı qısa müddətdə alındı. Təxribat zamanı xüsusi fəallıq göstərən 20 nəfər milliyyətcə erməni olan şəxs həbs edildi. Onlardan 5 nəfərə ölüm hökmü kəsildi, 14 nəfər isə müxtəlif müddətlərə azadlıqdan məhrum edildi. İşin istintaqını Heydər Əliyev şəxsən öz nəzarətinə götürdü. Hətta bu məqsədlə Xankəndinə gedərək 15 gün orada qaldı (AR MTN arxivi).

Həmin ərəfədə məlum olur ki, həbs olunan ermənilərin qisasını almaq məqsədilə Qarabağda yaşayan azərbaycanlılara və müxtəlif partiya fəallarına qarşı yeni hücumlar hazırlanır. Bu məqsədlə Ermənistan ərazisində xüsusi terrorçu qrup yaradılıb və onlar əldə etdikləri silah-sursatı Yerevan şəhərinin yaxınlığında gizli yerdə saxlayırlar.

Heydər Əliyevin qətiyyəti və əzmkarlığı sayəsində, onun rəhbərliyi altında xüsusi əməliyyat-istintaq qrupu yaradılır, həmin terrorçu qrupun gizli cəbbəxanası aşkar olunur və oradan 4 ədəd "Kalaşnikov" tipli avtomat, 2 ədəd pulemyot, bir neçə ədəd "Naqan" və "Mauzer" tipli tapançalar, eləcə də həmin silahlar üçün nəzərdə tutulmuş külli miqdarda güllələr və digər döyüş sursatı götürülür. Aparılan araşdırmalar zamanı məlum olur ki, həmin silah-sursat Ermənistan ərazisində dislokasiya olunan sovet ordusunun anbarlarından oğurlanıb (?!). Lakin SSRİ prokurorluğu cinayət işini Azərbaycan prokurorluğundan alaraq öz icraatına götürdü. Bununla da qrup üzvlərinin sonrakı taleyi qaranlıq qaldı.

Həmin vaxtda DQMV-də erməni-daşnak qüvvələri tərəfindən yenidən təxribat xarakterli vərəqələrin hazırlanaraq yayılması, Qarabağın Ermənistana birləşdirilməsini tələb etmək məqsədilə imzaların toplanması və s. fəaliyyət göstərildi. Amma həyata keçirilən əməliyyat tədbirləri nəticəsində ermənilərin bu təxribatlarını da zərərsizləşdirmək mümkün oldu.

Heydər Əliyev 1967-ci ilin yekunlarına dair SSRİ DTK-ya göndərdiyi hesabatında bu kimi hadisələrdə Ermənistan SSR-də fəaliyyət göstərən millətçi dairələrin birbaşa rolunun olduğunu, hadisələrin onlar tərəfindən təşkil edildiyini bildirir və bunu təsdiq edən aşağıdakı faktları göstərir:

1. Son beş ildə Qarabağla heç bir əlaqəsi olmayan millətçi ermənilər mütəmadi Xankəndinə səfərlər edir, orada şər və təxribat xarakterli fikirlərlə yanaşı, Qarabağın yaxın vaxtlarda Ermənistana birləşdiriləcəyi barədə təbliğat aparırlar.
2. Bu istiqamətdə Qarabağda yaşayan ermənilərə müraciətlər hazırlanır və imza toplanılması təşkil edilir.
3. Millətçi çağırışlar əks olunan vərəqələr Ermənistanda hazırlanır və sonradan Qarabağa gətirilir.
4. Ermənistanda tarixin saxtalaşdırılması istiqamətində böyük işlər aparılır, bu istiqamətdə əsərlərin yazılması və dərsliklərə salınması təşkil olunur (AR MTN arxivi).

Azərbaycan təhlükəsizlik orqanları tərəfindən davam etdirilən yoxlama tədbirləri zamanı məlum olur ki, Ermənistandan gətirilən vərəqələr Yerevan Politexnik İnstitutunun mətbəəsində hazırlanır. Erməni millətçiləri öz çirkin oyunlarına hətta orta məktəblərin aşağı sinif şagirdlərini də cəlb edirlər. Bunun da əsas səbəbi onlara qarşı konkret cinayət təqibi, cəza tədbirlərinin görülməsinin çətinliyi ilə bağlı idi. Bu barədə AR DTK DQMV üzrə şöbənin 1967-ci il üzrə hesabatında qeyd olunur ki, təxribatlara orta məktəbin 9-cu sinif şagirdləri də cəlb edilirlər (AR MTN arxivi).

AR DTK-nın 1968-ci il üzrə hesabatı. AR DTK DQMV üzrə şöbənin rəisi polkovnik Dmitri Bıstrovun məruzəsindən: "Ötən hesabat dövründə verilmiş tapşırıqlarla əlaqədar keçirilmiş əməliyyat tədbirləri zamanı 1968-ci ildə 1967-ci ilə nisbətən milliyyətçi vərəqələrin hazırlanması və yayılması, eləcə də ermənilərin azərbaycanlılara qarşı hücumları kəskin azalıb. Belə ki, 1967-ci ildə 30 müəllif tərəfindən hazırlanan 1.241-dən çox vərəqə və məktub (bunlardan 1.200-ü vərəqə, qalanları isə məktub şəklində) aşkarlansa da, 1968-ci ildə bu qəbildən olan ümumilikdə 17 müəllif tərəfindən hazırlanan 53 sənəd aşkar edilib. Bununla belə, keçirilən tədbirlər zamanı yenə də qruplar aşkar edilərək ləğv edilib, onlardan çoxlu miqdarda vərəqələr və həmin vərəqələri hazırlamaq üçün lazım olan avadanlıqlar aşkar edilərək götürülüb" (AR MTN arxivi).

Həmin dövrdə Ermənistanda da geniş anti-Azərbaycan təbliğat-təşviqat işləri aparılırdı. Qondarma erməni tarixçiləri tərəfindən Qarabağın tarixi saxtalaşdırılaraq "erməni torpaqları" olması barədə dərsliklər və məqalələr yazılır, qədim Azərbaycan ərazilərinin Ermənistana birləşdirilməsi barədə Moskvaya ardı-arası kəsilməyən məktublar, müraciətlər yazılırdı. Qeyd olunan işlərə ümumilikdə Ermənistan Dövlət Universitetinin müəllimi, fizika-riyaziyyat elmləri namizədi Nikolay Qasparyan başçılıq edirdi.

Fenomenal istedada və təşkilatçılıq bacarığına, əsl peşəkar təhlükəsizlik zabitinə xas olan nadir fəhmə malik Heydər Əliyevin tapşırığı ilə Ermənistana istiqamətləndirilən əməliyyat mənbələrinin təqdim etdikləri məlumatlardan bəlli olurdu ki, Ermənistan ərazisində fəaliyyət göstərən anti-Azərbaycan dairələrin nümayəndələri Azərbaycanda yaşayan qohumlarının vasitəsilə Qarabağın Ermənistana birləşdirilməsi və azərbaycanlıların fiziki məhv edilməsi və ya öz torpaqlarından qovulması istiqamətində təbliğatı genişləndiriblər. Azərbaycan təhlükəsizlik orqanlarının əməliyyat mənbələrindən birinin Yerevan Politexnik İnstitutunda tələbələrlə söhbət zamanı əldə etdiyi məlumatda bildirilirdi: "Ağdərə rayon sakini, milliyyətcə erməni Alvina adlı qadın 24 aprel 1968-ci ildə qondarma "soyqırımı günü"nün ildönümü ilə əlaqədar azərbaycanlılara qarşı zor tətbiq edilməsi, Qarabağın Ermənistana birləşdirilməsi və s. barədə milliyyətçi xarakterli vərəqələr yaymalıdır". Yoxlama zamanı məlumat öz təsdiqini tapır. 1968-ci il aprel 23-də Alvina Şirinyan saxlanılır və təxribatçı vərəqələr ondan götürülür. Həmin hadisə ilə bağlı Ağdərədə erməni milliyyətindən olan beş nəfər 10-cu sinif şagirdi saxlanılır və bununla da böyük bir təxribatın qarşısı alınır. Əlavə araşdırmalar zamanı məlum olur ki, Alvinanın qardaşı Viqen Şirinyan Yerevan Politexnik İnstitutunun tələbəsidir və təxribat məzmunlu vərəqələr Ağdərəyə onun vasitəsilə Ermənistandan gətirilib.

Yerevandan əldə edilən daha bir məlumat əsasında Xankəndi şəhərində hazırlanan növbəti belə təxribatın qarşısı alınır. Əməliyyat tədbirləri zamanı Xankəndi şəhərində yerləşən 1 saylı orta məktəbin erməni milliyyətindən olan dörd nəfər 10-cu sinif şagirdi saxlanılır, onlardan azərbaycanlılara qarşı nifrət aşılayan, milli zəmində ədavət salmağa, qarşıdurma yaratmağa çağıran vərəqələr və çap avadanlıqları götürülür.

1970-ci ildə Qarabağın Ermənistana birləşdirilməsi və oradan azərbaycanlı əhalinin qovulması məqsədilə Yerevan şəhərində təxribat-pozuculuq fəaliyyəti ilə məşğul olacaq daha bir təşkilat yaradılır. Təşkilatın rəhbəri 1951-ci il təvəllüdlü, Xaçaturyan Armais Vaqanoviç idi.

Həmin təşkilata nüfuz etdirilmiş mənbənin məlumatından: "A.Xaçaturyan məni təşkilatın Dağlıq Qarabağda fəaliyyət göstərən qollarından birinə rəhbər təyin etdi və qarşımda bütün rayonlarda gizli qrupların yaradılması, millətçi xarakterli vərəqələrin hazırlanması və yayılması tapşırığı qoydu. Bundan əlavə, üzvlük haqqı yığılmalı, həmin vəsait hesabına təşkilat üzvlərinin ezamiyyət xərci ödənilməklə yanaşı, silah-sursat və digər vəsaitlər alınmalı idi. Təşkilatın proqramına əsasən əvvəlcə bütün "erməni torpaqları" birləşdirilməli idi". Çox keçmir Xaçaturyanın təşkilatının beş üzvü həbs edilərək müxtəlif müddətlərə azadlıqdan məhrum edilirlər, əlavə 18 nəfər isə inzibati qaydada cəzalandırılır.

Erməni-daşnak dairələri onlara qarşı aparılan kəskin mübarizəni nəzərə alaraq digər fürsət və yollar axtarırdılar. Hətta terror metodlarından istifadə etməkdən belə çəkinmirdilər. Onlar Azərbaycanın və Dağlıq Qarabağın müxtəlif partiya rəhbərlərinə, hakimiyyət nümayəndələrinə məktublar göndərərək onları "haqq işlərinə" maneçilik törədəcəkləri təqdirdə öldürəcəkləri ilə hədələyirdilər. Bununla belə, Heydər Əliyev qeyd olunan məsələləri daim diqqətdə saxlayaraq cinayətkarlara qarşı daha inamlı mübarizə aparmağı, əməliyyat şəraitinə nəzarət etmək məqsədilə kompleks tədbirləri gücləndirməyi tapşırırdı.

Aşkar edilmiş təhlükəli cinayətkar dəstələrdən birinə isə 1950-ci ildə Qafan şəhərində anadan olan Baqdasaryan Edik Samsonoviç başçılıq edirdi. O, Ermənistanda yaradılan və sonradan Qarabağda gizli

fəaliyyət göstərən "Vətənpərvərlər ittifaqı" adlı erməni-daşnak terrorçu təşkilatının rəhbəri idi. Terrorçu təşkilat 1968-ci ildə Qafan şəhərində yaradılmışdı. E.Baqdasaryan hətta Qafan şəhərində yerləşən 27 saylı internat məktəbinin 6-10-cu sinif şagirdləri arasında qeyri-qanuni təbliğat aparır, azərbaycanlılara və Azərbaycana qarşı nifrət aşılayır, onların "erməni təəssübkeşləri kimi böyümələrinə" çalışırdı. Əsas məqsədi Dağlıq Qarabağın və Naxçıvan Muxtar Respublikasının Ermənistana birləşdirilməsi olan "Vətənpərvərlər ittifaqı" erməni-daşnak terrorçu təşkilatına öz mənfur niyyətlərini həyata keçirmək üçün E.Baqdasaryan öz əlaltılarına fiziki zorakılıqlar etməklə azərbaycanlıların doğma torpaqlarından qovulmaları, öldürülmələri, əmlaklarının talan edilməsi barədə tapşırıqlar verirdi. Bundan əlavə, E.Baqdasaryan təşkilat üzvlərinə Azərbaycan televiziyasına məxsus verilişlərin Ermənistan ərazisində yayımlanmasının qarşısını almaq üçün Qafan şəhərində yerləşən teleötürücü stansiyanın partladılması barədə də göstəriş vermişdi. "Vətənpərvərlər ittifaqı"nın üzvü Poqosyan Arzik Vazgenoviç sonradan istintaqa verdiyi ifadəsində bildirdi: "Təşkilat üzvləri azərbaycanlılara məxsus məktəbləri yandırmağın zəruriliyini qeyd edərək, ruslara məxsus məktəblərin də bağlanmasını tələb edirdilər" (AR MTN arxivi)

E.Baqdasaryan 1969-cu ildə digər cinayət əməlinə görə həbs edildi və planlaşdırdığı terrorçuluq niyyətləri yarımçıq qaldı, terrorçu təşkilatının fəaliyyəti bir müddət səngidi. Lakin havadarlarının köməyi ilə 1970-ci ildə həbsdən azad edilən E.Baqdasaryan Yerevana gedərək daşnak-millətçi təfəkkürlü erməni şairi Ovanes Şirazla görüşür. E.Baqdasaryan O.Şiraz tərəfindən "təlimatlandırıldıqdan" sonra yenidən Qafana qayıdır və "Vətənpərvərlər ittifaqı" erməni-daşnak terrorçu təşkilatının fəaliyyətini davam etdirmək və daha da genişləndirmək məqsədilə ətrafına cinayətə meyilli gəncləri toplamağa başlayır.

O.Şirazın təlimatına əsasən E.Baqdasaryan cinayət fəaliyyətini eyni zamanda orta məktəblərdə də yaymağa çalışırdı. Bunun əsas səbəbi şagirdlərin daha tez təsir altına düşmələri, "vətənpərvərlik" hissinə qapanaraq ona daha tez inanmaları, istənilən tapşırığı həvəslə yerinə yetirməyə meyilli olmaları idi (AR MTN arxivi).

Bunu təşkilatın ilk üzvü olan şəxslərin siyahısında da açıq-aşkar müşahidə etmək olar:

- Qevorkyan Akop Setrakoviç - 1956-cı il. Qafan rayonu, Tenzavar kəndi (14 yaş).
- Andreasyan Rafik Şmavonoviç - 1954-cü il. Qafan şəhəri (16 yaş).
- Nersesyan Andranik Volodyeviç - 1956-cı il. Qafan rayonunun Qatnarat kəndi (14 yaş).
- Ohanesyan Valerik Qerasimoviç - 1955-ci il. Qafan rayonunun Ankavan qəsəbəsi (15 yaş).

Həmin dövrdə Ermənistan SSR DTK Qafan rayon şöbəsinin rəisi işləyən kapitan Q.Tovmasyan E.Baqdasaryan barədə tərtib etdiyi 10 may 1974-cü il tarixli arayışda qeyd edir ki, "E.Baqdasaryanın rəhbərlik etdiyi "Vətənpərvərlər ittifaqı" təşkilatının Ermənistanda üç qrupu fəaliyyət göstərirdi. Birinci qrup "Mstiteli Eqerna" adlanırdı. Əsas vəzifəsi azərbaycanlılara məxsus olan müxtəlif obyektləri, o cümlədən onların mənzillərini, əkin sahələrini və s. partlatmaq və yandırmaqdan ibarətdir. İkinci qrup "Predanie Sevaku" adlanırdı. Əsas vəzifəsi erməni əhalisi arasında azərbaycanlılara qarşı nifrət, kin yaradan, onların öz torpaqlarından qovulmasına, fiziki məhv edilməsinə çağıran vərəqələrin hazırlanması və yayılmasıdır. Üçüncü qrupun vəzifəsi isə azərbaycanlıları fiziki məhv etməkdir".

Q.Tovmasyan arayışında qeyd edir ki, "1972-ci il aprelin 24-də "Mstiteli Eqerna" qrupunun üzvləri olan 1954-cü il təvəllüdlü Andresyan Rafik Şmavonoviç (16 yaş), 1956-cı il təvəllüdlü Nersesyan Andranik Volodyeviç (14 yaş) və 1955-ci il təvəllüdlü Ohanesyan Valerik Qerasimoviç (15 yaş) E.Baqdasaryanın hazırlığı və xüsusi tapşırığı ilə Qafan şəhərində yerləşən, azərbaycanlılara məxsus orta məktəbi yandırıblar. Bu məqsədlə içərisinə benzin doldurulmuş butulkalardan istifadə edilib.

Həmin il "Predanie Sevaku" terrorçu qrupun üzvləri 1957-ci il təvəllüdlü Akopyan Manvel Qavruşeviç və 1955-ci il təvəllüdlü Ovsepyan Qrantik Araratoviç siyasi və düşmənçilik xarakterli vərəqələr hazırlayaraq paylayır, qrupun digər üzvü Valerik Ohanesyan isə dəstəsi ilə birlikdə bir neçə azərbaycanlını milli zəmində döyərək onlara ağır bədən xəsarətləri yetiriblər. E.Baqdasaryanın 26 aprel 1972-ci il tarixli tapşırığı ilə yuxarıda qeyd olunan Akopyan Manvel və Nersesyan Andranik bir neçə evi yandırmaq məqsədilə Qafan rayonunun azərbaycanlılar yaşayan Qeqanuş kəndinə gedirlər, lakin son anda tapşırığın bir neçə gün təxirə salınması barədə qərar qəbul olunub".

Baş verən təhlükəli hadisələr barədə Ermənistanın hüquq-mühafizə orqanlarında yetərincə sübutların olmasına baxmayaraq E.Baqdasaryan və onun təşkilatına qarşı heç bir əməli tədbir görülmür, əksinə Yerevandan Qafana gələn daşnak-millətçi təfəkkürlü şair və yazıçıların E.Baqdasaryan və onun cinayətkar dəstəsinin üzvləri ilə görüşləri təşkil edilir, sonuncular daha ağır cinayətlərə ruhlandırılırdılar.

Bu barədə DTK Qafan rayon şöbəsinin rəisi, kapitan Q.Tovmasyan arayışında qeyd edir ki, "Baqdasaryan dəfələrlə şöbəyə dəvət edilərək onunla müvafiq istiqamətdə profilaktik söhbətlər aparılıb, hər dəfə o, belə hadisələrin bir daha baş verməməsi barədə söz verib". Həmin arayışdan görünür ki, E.Baqdasaryan və onun

dəstə üzvlərinin əməllərində kifayət qədər cinayət tərkibi olduğu halda heç bir tədbir görülmür, yalnız dəstənin başçısı E.Baqdasaryanla profilaktik söhbət aparmaqla iş yekunlaşmış hesab olunur.

E.Baqdasaryan isə öz ifadələrində bu barədə bildirir ki, "DTK Qafan rayon şöbəsinin rəisi Tovmasyan onu bir neçə dəfə şöbəyə dəvət edərək müxtəlif səpkili söhbətlər aparsa da, nəinki azərbaycanlılara qarşı törədilən zorakılıqları dayandırmağı tapşırmayıb, bu zorakılıqlar barədə ümumiyyətlə söz açmayıb. Bu da ona öz fəaliyyətini genişləndirməyə əlavə stimul yaradıb".

Erməni-daşnak təhrikçilərinin müvafiq təlimatları, eləcə də onların dəstəyi sayəsində cəzasız qalmasından istifadə edən E.Baqdasaryan artıq Azərbaycanın Qarabağ ərazisində terrorçu təşkilatının dayaqlarını yaratmağı qərara alır və bu məqsədlə 1973-cü ilin mart ayından başlayaraq mütəmadi olaraq Xankəndi şəhərinə səfərlər edir. O, orada milliyyətcə erməni olan müxtəlif şəxslərlə görüşərək onları terrorçu təşkilatının sıralarına cəlb edə bilir. Onun terrorçu təşkilatının Qarabağdakı özəyini Xankəndi tibb texnikumunun tələbələri və Xankəndi ipək kombinatının fəhlələri təşkil edirdi. Həmin şəxslərlə söhbətlərdə E.Baqdasaryan onları azərbaycanlı əhaliyə qarşı düşmənçiliyə sövq edir, fəal hərəkətə keçməyin vaxtının çatdığını bildirirdi.

Maraqlı faktdır ki, terrorçu təşkilata qadın üzvləri E.Baqdasaryanın tapşırığına əsasən onun həyat yoldaşı Gözəl Baqdasaryan seçirdi. Yalnız bundan sonra E.Baqdasaryan onlarla əlaqə yaradırdı. Arvadının vasitəsilə tanış olduğu qadınlara ilkin söhbətlərdə bildirirdi ki, guya yazıçıdır, erməni xalqı barədə roman yazır. Bu səbəbdən də müxtəlif xarakterli insanlarla tanış olmalı və onların xarakterini öyrənməlidir. Söhbət əsnasında E.Baqdasaryan həmin qadınlara "Qarabağ xalqı", onun gələcəyi və s. barədə təxribat xarakterli suallar verir və cavablardan asılı olaraq bəziləri təşkilata üzv seçilirdi.

1973-cü ilin sonuna kimi o, Qarabağ ipək kombinatında işləyən, 1952-ci il təvəllüdlü Barseqyan Cülyetta Atanesovna, Xankəndi (keçmiş Stepanakert) uşaq-gənclər məktəbinin şagirdi Ağacanyan Anaida Rubenovna, Xankəndi tibb texnikumunun tələbələri - Poqosyan Arzik Vazqenovna, Şahbazyan Laura Qriqoryevna, Gorus kənd təsərrüfatı texnikumunun tələbələri Qazaryan Aruşan İqnateviç və Qevorkyan Akop Setpakoviçi öz təşkilatına cəlb edə bilir.

Bundan sonra, üzvlük haqqı adı ilə təşkilat üzvlərindən pul yığılmağa başlandı. Cülyetta Barseqyan və Laura Şahbazyan ifadələrində göstərirlər ki, həmin vaxt müxtəlif yerlərdə işləyən şəxslərdən aylıq 10 rubl, tələbələrdən və yetkinlik yaşına çatmayan şəxslərdən isə 5 rubl alınırdı. Yığılan pul vəsaiti təxribat xarakterli vərəqələrin hazırlanması və yayılması, bu məqsədlə çap maşınının alınması, təşkilat üzvlərinin müxtəlif səfərlərinin maliyyələşdirilməsi, eləcə də törədilməsi planlaşdırılan terror-təxribat hadisələrində istifadə ediləcək vasitələrin əldə olunmasına xərclənirdi. Bundan əlavə həmin pulun bir hissəsi xaricdə çıxan "Qolos Armenii", "Beyrut" və s. bu kimi qəzetlərin nəşrinə yardım kimi sərf olunacağı bildirilirdi. Göstərilən məqsədlər üçün Cülyetta Barseqyan, Arzik Poqosyan, Laura Şahbazyan və təşkilatın üzvü olan digər şəxslər külli miqdarda üzvlük haqqından əlavə yardımlar da edirdilər.

E.Baqdasaryan təşkilat üzvləri ilə söhbətlərində bildirirdi ki, xaricdə yaşayan ermənilər də onların fəaliyyətini dəstəkləyir, müxtəlif mətbu orqanlarda onların "haqq işi"ni dəstəkləyən materiallar dərc etdirirlər. O, bu istiqamətdə ABŞ-da nəşr olunan "Kanaç" qəzetinin "əməyini" xüsusi qeyd edirdi. E.Baqdasaryan Ermənistanda bir neçə gizli təşkilatın mövcudluğunu, həmin təşkilatların da Naxçıvan və Qarabağın Ermənistana birləşdirilməsi, azərbaycanlı əhalinin torpaqlarından qovulması, onlara məxsus əmlakın yandırılması, talan edilməsi istiqamətində fəaliyyət göstərdiklərini deyirdi. Xankəndidə yaşayan qrupun üzvləri tez-tez Edik tərəfindən Qafana və Gorusa aparılır, orada onlara təlimlər keçirilir, Ermənistanda yaşayan digər üzvlərlə tanış edilir, eləcə də təşkilatın əsas rəhbəri Akop Qevorkyanla görüşləri təşkil olunurdu.

Lakin E.Baqdasaryan və onun rəhbərlik etdiyi ekstremist-separatçı dəstənin fəaliyyəti çox keçmir ki, Azərbaycan xüsusi xidmət orqanlarının əməkdaşları tərəfindən aşkarlanır və o, 1974-cü il fevralın 18-də Qarabağda həbs olunur. Bununla da E.Baqdasaryanın dəstənin daha böyük cinayətlərinin, o cümlədən Şuşa teleötürücü stansiyasının partladılmasının və planlaşdırılan digər terror əməllərinin qarşısı alınır. Qeyd olunan materiallar 36 nəfərin şahid ifadələri ilə birlikdə toplanılaraq 1974-cü il iyunun 14-də baxılmaq üçün Azərbaycan prokurorluğuna göndərilir.

İstintaq zamanı E.Baqdasaryan ifadəsində qeyd edir ki, "Vətənpərvərlər ittifaqı" adlı təşkilatı yaratdıqdan və ora ilk üzvləri cəlb etdikdən dərhal sonra Yerevana gedərək bu barədə şair Ovanes Şiraza məruzə edib. Şiraz onun düzgün yolda olmasını bildirib, tezliklə vərəqələrin hazırlanaraq yayılmasını və digər işləri tapşırıb. Bundan əlavə Edik Şiraza məruzə edir ki, onun yaşadığı Qafan rayonunun əhalisinin 30 faizi azərbaycanlılardan ibarətdir və onların 4 nömrəli orta məktəbi fəaliyyət göstərir. Erməni xalq şairi Şiraz isə öz növbəsində tezliklə həmin məktəbin bağlanılması istiqamətində tədbir görülməsini tapşırır. Həmin tapşırığın icra edilməsi istiqamətində ilk addım 1974-cü il aprelin 24-də atılır və məktəb yandırılır".

1974-cü il iyulun 23-də Azərbaycan SSR Ali Məhkəməsinin hökmü ilə E.Baqdasaryan cəmi 4 il müddətinə azadlıqdan məhrum edilir. Sənədlərdən də görünür ki, həmin məhkəmənin hakimi milliyyətcə rus, xalq iclasçıları, prokuror, katib və müdafiəçi isə milliyyətcə erməni olmuşdur. Bu səbəbdən də E.Baqdasaryan və onun terror dəstəsinin üzvləri əməllərində kifayət qədər cinayət olduğu halda yüngül cəza ilə əsl məsuliyyətdən yayına bilirlər.

Həmin dövrdə azərbaycanlıların Dağlıq Qarabağdan qovulması istiqamətində fəal iş aparan, ermənilərdən ibarət daha bir terrorçu dəstəyə isə 1921-ci il təvəllüdlü "Peşka" ləqəbli Danielyan Rafael Armenakoviç başçılıq edirdi. O, azərbaycanlı əhaliyə qarşı düşmənçilik fəaliyyəti və təbliğatı apardığına, o cümlədən xuliqanlıq hərəkətləri etdiyinə görə 1967 və 1970-ci illərdə 2 dəfə həbs olunur. Lakin hər iki halda işi aparan erməni müstəntiqlərin və məhkəmənin səyi nəticəsində qısa müddət ərzində azadlığa çıxa bilir. O, 1971-ci ilin yazından başlayaraq ətrafına daşnak təfəkkürlü, kriminala meyilli şəxsləri toplamağa başlayır, eyni zamanda müxtəlif növ silah-sursat əldə edərək növbəti təxribatlara hazırlaşır.

Belə ki, o, 1971-ci ilin iyul ayında bu məqsədlə Xankəndi şəhərində yerləşən 39828 saylı hərbi hissədə xidmət edən milliyyətcə erməni Qaragen Dadayan adlı şəxslə sövdələşərək ondan çoxlu sayda "RQ-72" tipli əl qumbarası və digər silah-sursat almağa nail olur. Silahlı qrup yeni yaradılarkən 9 nəfər üzvü olub və onlar öz sıralarını daim genişləndirməyə çalışıblar. Dəstə üzvlərinin əsas məqsədləri azərbaycanlılara qarşı kin və nifrət təbliğatı aparmaqla yanaşı, onları terrorla fiziki məhv etmək, bununla da əhalini qorxudaraq Qarabağdan köçmələrinə nail olmaq idi.

Terrorçu dəstənin ilk hədəfi kimi o vaxt "Xankəndi" mehmanxanasında yerləşdirilən, xüsusi təlimlər keçmək məqsədilə Azərbaycanın müxtəlif rayonlarından çağırılan ehtiyatda olan zabitlər seçildi. Dəstə üzvləri bir neçə gün həmin zabitləri izlədikdən sonra 1971-ci il iyulun 18-də onların mehmanxananın həyətində bir yerə toplaşdıqlarından istifadə edərək qumbaralarla onlara hücuma keçdilər. Nəticədə beş azərbaycanlı hərbçi müxtəlif bədən xəsarətləri aldı. Hücumdan sonra cinayətkarlar hadisə yerindən qaçaraq uzaqlaşa bildilər.

Nəhayət Azərbaycan təhlükəsizlik orqanlarının əməkdaşlarının səyləri nəticəsində 1972-ci il noyabrın 15-də dəstə üzvlərindən bir neçəsi tutuldu. Hadisədən sonra həbs olunan dəstə üzvlərinin evlərindən terror-təxribat məqsədilə topladıqları çoxlu sayda silah-sursat aşkarlanaraq götürüldü.

Uzun müddətli əməliyyat-istintaq tədbirlərindən sonra, 13 fevral 1974-cü il tarixdə Azərbaycan SSR Ali Məhkəməsinin qərarı ilə dəstə üzvləri - 1951-ci il təvəllüdlü Danielyan Rafael Armenakoviç, 1951-ci il təvəllüdlü Ağacanyan Valeri Mixayloviç, 1951-ci il təvəllüdlü Dadayan Qaragen Lvovoviç, 1951-ci il təvəllüdlü Markaryan Samvel Stepanoviç, 1952-ci il təvəllüdlü Barseqyan Valeri Zeynaloviç, 1952-ci il təvəllüdlü Ağacanyan Slava Qurgenoviç 2 ildən 15 ilədək müddətlərə azadlıqdan məhrum edildilər.

Ermənistanda dövlət səviyyəsində himayə olunan və istiqamətləndirilən, keçmiş İttifaqın mərkəzində bir sıra nüfuzlu dairələr tərəfindən dəstəklənən, habelə xaricdən təşkilatlandırılan və maliyyələşdirilən erməni separatçı, ekstremist-terrorçu qüvvələri ilə arzuolunan səviyyədə mübarizə aparmaq və səmərəli nəticələrə nail olmaq heç də asan deyildi.

Buna baxmayaraq, ulu öndər Heydər Əliyev bütün qüvvə və vasitələri səfərbər edir, bu dəhşətli, kəsildikcə yayılan "xərçəng" xəstəliyi ilə hər vəchlə mübarizə aparmağa çalışırdı.

### Fenomenal kəşfiyyatçı, diplomat və siyasi xadim

Ümummilli lider Heydər Əliyev hələ o dövrdə DQMV-də baş verən təxribat hərəkətlərində Ermənistan SSR-nin rəhbərlərinin də əlinin olduğunu çəkinmədən bildirirdi. Belə ki, AR DTK-nın 1967-ci il üçün olan hesabatında DQMV-də olan vəziyyətin müfəssəl təhlilini verərək qeyd edirdi ki, "bir çox hallarda vilayətdə siyasi cəhətdən ziyanlı və cəmiyyətə zidd olan hərəkətlər Ermənistan SSR-dən olan millətçiliyə köklənmiş ayrı-ayrı elementlərin təsiri və bilavasitə iştirakı ilə həyata keçirilir" (AR MTN arxivi).

Ermənistan-Azərbaycan münaqişəsinin tarixi köklərini dərindən bilən ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə problemi daim diqqət mərkəzində saxlayır, təxribat ocaqlarının dərhal söndürülməsinə, öz nüfuzundan istifadə edərək SSRİ rəhbərliyi ilə mütəmadi danışıqlar apararaq problemin böyüməsinin və bununla da 1947-ci il hadisələrinin yenidən təkrarlanmasının qarşısının alınmasına çalışırdı. O çox yaxşı bilirdi ki, problem təkcə Ermənistan rəhbərliyindən deyil, eyni zamanda erməni diasporundan və onların bağlı olduğu xarici xüsusi xidmət orqanlarından da qaynaqlanır. Bir çox xarici ölkələrin xüsusi xidmət orqanları SSRİ-ni daxildən dağıtmaq məqsədilə erməni kartından məharətlə istifadə edirdilər.

Bu baxımdan, Azərbaycana rəhbərliyə başladıqdan sonra da Heydər Əliyevin fəaliyyətində antiAzərbaycan qüvvələrin, ilk növbədə erməni-daşnak dairələrinin iddialarının qətiyyətlə qarşısının alınması da mühüm yer tuturdu.

Xaricdə bütün dünyaya meydan oxuyan, daxildə isə hər hansı müstəqillik meyillərinə qarşı çox qəddarcasına davranan SSRİ-nin "başbilənlərinin", eləcə də Azərbaycana düşmənçiliyini gizlətməyən və heç də zəif olmayan erməni siyasi nomenklaturasının mövcud olduğu bir zamanda, belə bir tarixi şəraitdə Heydər Əliyev respublikaya rəhbərlik etdiyi illərdə, sonra da SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu vaxtlarda da xalqını düşündürən problemləri müdrikliklə həll edir, milli maraqların və mənafelərin təminatı üçün lazım olan məsələləri ehtiyatla, soyuq düşüncə ilə, məqsədyönlü şəkildə planlaşdırır və inamla həyata keçirir, praqmatik siyasi-taktiki gedişlərlə gələcək müstəqil Azərbaycan üçün çalışırdı.

Bunun bariz nəticəsi idi ki, Heydər Əliyevin hakimiyyəti illərində Dağlıq Qarabağda yaşayan ermənilər Azərbaycan torpaqlarına gəlmə olduqlarını bu və ya digər şəkildə etiraf etməli olurdular. Təsadüfi deyil ki, onlar bu diyara köçürülmələrinin 150 illiyi münasibəti ilə 1978-ci ildə keçmiş Mardakert - Ağdərə rayonunun Marağaşen - Leninavan kəndində xüsusi abidə də qoymuşdular.

Amma üzdəniraq erməni alimləri, siyasətçiləri, yazıçıları, şairləri və onlara qahmar çıxanlar antiAzərbaycan siyasətlərindən heç cür əl çəkmir, əsassız iddialarını daha məkrlə davam etdirirdilər. Onların Azərbaycanın böyük və yenilməz oğlu Heydər Əliyevin əleyhinə müxtəlif mərkəzi orqanlara göndərdikləri şər, böhtan dolu, heç bir əsası olmayan "şikayət" məktublarının və teleqramlarının ardı-arası kəsilmirdi. Bütün bunlar həm erməni-daşnak dairələrinin antiAzərbaycan siyasətinin əsas hədəfini, həm də Heydər Əliyevin onlara qarşı fədakar mübarizəsinin mahiyyətini aydın şəkildə göstərir.

Ümummilli lider Heydər Əliyev SSRİ kimi nəhəng dövlətin başçılarından biri təyin olunduqdan sonra Moskvaya gedərkən Azərbaycan rəhbərlərinə Dağlıq Qarabağa qayğı, qonşu Ermənistanla münasibətlərə xüsusi diqqət yetirməyi tövsiyə etmişdir. Lakin bu müdrik və uzaqgörən nəsihətlər yetərincə nəzərə alınmadı. Nəticədə erməni-daşnak qüvvələri yenidən Azərbaycan üzərinə ayaq açdılar, məmləkətimizə qarşı ağlasığmaz ərazi iddiaları irəli sürdülər. Respublikanın o vaxtkı rəhbərliyinin zəifliyi, iradəsizliyi ermənilərə və erməniləri əllərində alət etmiş bəzi qüvvələrə öz məkrli planlarını genişləndirmələrinə imkan verirdi.

Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verdikdən qısa müddət sonra ermənilər Dağlıq Qarabağın ilhaq edilməsi məsələsini artıq heç nədən çəkinmədən qaldırdılar.

Bunumla da Azərbaycan böyük fəlakətlərlə üzləşdi. Lakin hələ ümid yeri var idi. Qarşıdan bu fəlakətlərlə mübarizənin qətiyyətlə aparılması, Azərbaycanın qurtuluşu və onun qüdrətlənməsi, əbədi müstəqillik və dövlətçilik vəzifələrini həyata keçirməli olan, xalqın imdadı Heydər Əliyev missiyasının yeni dövrü gəlirdi.

“**Respublika**”.-2014.-30 aprel.-N 88.-S.3.;1 may.-N 89.-S.4.; 2 may.-N 90.-S.6.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MÜSTƏQİL XARİCİ SİYASƏTİNİN FORMALAŞMASI

**Sərxanbəy Xuduyev,**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

Müasir dövrdə hər bir demokratik dövlətin xarici siyasəti rəsmi və qeyri-rəsmi institutların, vətəndaş cəmiyyəti təsisatlarının tələb və istəklərinin sintezi nəticəsində formalaşmış ümumi rəyə əsaslanır. Milli maraqları ifadə edən bu ümumi rəyin ardıcıl və davamlı fəaliyyət proqramına çevrilməsi, milli səviyyədə gerçəkləşdirilməsi və koordinasiyasını isə dövlət həyata keçirir.

1993-cü ildən yeni formalaşmağa başlayan Azərbaycanın müstəqil xarici siyasəti, ilk növbədə, ölkənin ərazi bütövlüyünün və suverenliyinin tezliklə bərpa edilməsi, qonşu dövlətlərlə mehriban və qarşılıqlı surətdə faydalı münasibətlərin inkişaf etdirilməsi, yeni dünya nizamı çərçivəsində regional və qlobal proseslərdə ölkənin fəal iştirakının təmin edilməsi, regionda sabitliyin və təhlükəsizliyin gücləndirilməsi, Avropa və Transatlantik strukturlarına inteqrasiya məsələlərinə və s. yönəldilmişdi.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra, dövlətçiliyini inkişaf etdirərək möhkəmləndirmək üçün tarixi fürsət əldə etmiş oldu. Belə bir şəraitdə milli dövlətçilik prinsiplərinə uyğun olaraq yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsi ən vacib məsələ kimi qarşıda dururdu. Əsas prioritet istiqamət isə hərbi işğal, etnik təmizləmə, bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarının kobudcasına pozulması, ölkənin böyük bir hissəsində tarixi və mədəni irsimizin ermənilər tərəfindən dağıdılması faktlarını özündə cəmləşdirən Ermənistanın Azərbaycana qarşı təcavüzü ölkənin təhlükəsizlik mühitinin əsas təyinedici amili oldu və bu da öz növbəsində Azərbaycanın təhlükəsizlik və xarici siyasətinin formalaşdırılmasında əsas rol oynadı.

1993-cü ilin ikinci yarısından, yəni ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Özünün zəngin təcrübəsinə əsaslanaraq dövlətimizin yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirən Prezident Heydər Əliyev bu yeniləşmiş xarici siyasət xəttində ilk növbədə bir sıra ən mühüm təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsi qarşıya qoymuşdu.

Həmin vəzifələrdən biri Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq respublikamız ətrafındakı informasiya blokadasını yarmaqdan ibarət idi. Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olması bu yöndə atılmış ilk addımlardan biri idi. Bu quruma daxil olan keçmiş Sovet respublikaları ilə ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmləndirilməsi istiqamətində ardıcıl iş aparıldı. Bu ölkələrlə iqtisadi, ticarət və mədəni əməkdaşlıq məsələlərinə xüsusi önəm verildi.

Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Prezident Heydər Əliyevin geniş və çoxşaxəli fəaliyyətinin əsas məzmununu münaqişənin beynəlxalq normalara uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizama salınması təşkil edirdi. Vaxtilə dünya siyasətindən demək olar ki, təcrid olunmuş, informasiya blokadasında sıxılan, haqqı tapdandığı halda erməni təbliğatı sayəsində üstəlik dünya birliyinin də qınağına tuş gələn, ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi Azərbaycana hər cür yardım göstərilməsini qadağan edən “Azadlığı dəstək aktı”na 907-ci düzəliş” deyilən ədalətsiz sənədlə ayrı-seçkiliyə məruz qalan Azərbaycan yalnız Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın bütün demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatların ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətini kökündən dəyişdirməyə nail ola bildi.

Münaqişənin həlli istiqamətində ən mühüm addımlardan biri atəşkəsin əldə edilməsi oldu. 1993-cü ilin sonları və 1994-cü ilin əvvəllərində ATƏT-in və digər vasitəçilərin səyləri ilə aparılan danışıqlar nəticəsində 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs əldə edildi. 1993-1995-ci illərdə Azərbaycan Prezidentinin bir sıra xarici ölkələrə səfərləri, keçirdiyi görüşlər, eləcə də dünyanın ayrı-ayrı dövlətlərindən respublikamıza gələn nümayəndələrlə aparılan danışıqlar Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətlərin beynəlxalq aləmə çatdırılması baxımından əhəmiyyətli rol oynadı.

Əminliklə söyləmək olar ki, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına yönəlmiş danışıqlar prosesində vaxt Azərbaycanın xeyrinə işləyir. Ölkəmiz ildən-ilə güclənir, beynəlxalq mövqelərini möhkəmləndirir və bütün bunlar münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunacağına olan ümidləri artırır. Təhlillər göstərir ki, BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin işğal olunmuş

Azərbaycan ərazilərini tərk etməsi haqqında müvafiq qətnamələrinin mövcudluğu, Avropa Şurası və ATƏT-in qəbul etdiyi bir sıra qərarlarda Ermənistanın təcavüzkar dövlət olduğunun təsbit edilməsi, Prezident İlham Əliyevin hücumçu diplomatiyasının uğurlu nəticələri, informasiya müharibəsində münaqişə barədə erməni tərəfin dünyada yaydığı dezinformasiyanın getdikcə ifşa olunması, Azərbaycanın iqtisadi-hərbi baxımdan güclənməsi, nəhayət, münaqişənin digər vasitələrlə həlli hüququnun ölkəmizdə qalması problemin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığı çərçivəsində həll olunacağına ciddi əsaslar verir.

Avroatlantik strukturlara inteqrasiya istiqamətində Azərbaycan çoxtərəfli Trans-Atlantik təhlükəsizlik əməkdaşlığı proqramlarını inkişaf etdirir, Avropa qitəsində və onun sərhədlərindən kənarda təhlükəsizlik və sabitliyə töhfə verir. Belə ki, ölkəmiz 1994-cü ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulan ilk dövlətlərdən olmuş və bu təşkilatın əksər qurumlarının işində fəal iştirak edərək NATO ilə mümkün tərəfdaşlıq mexanizmlərindən tam şəkildə bəhrələnir. Azərbaycan NATO-nun "Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Planının" (İPAP) birinci mərhələsini uğurla başa vurmuş və ikinci mərhələnin icrasına başlamışdır.

Ölkəmiz Avropa təhlükəsizlik arxitekturasının etibarlı tərəfdaşı kimi qitənin enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayır. Azərbaycan 2004-cü ildə əsas məqsədi Cənubi Qafqaz dövlətlərinin siyasi, iqtisadi cəhətdən Avropa dəyərlərinə yaxınlaşmasını sürətləndirməkdən ibarət olan "Avropa Qonşuluq Siyasətinə" qoşulmuş, 2006-cı ildə Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumunu imzalamış, 2008-ci ildə isə İttifaqın "Şərq tərəfdaşlığı" proqramına qoşulmaqla bu siyasi, iqtisadi əməkdaşlıq daha da genişlənmiş və keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Xarici siyasət sahəsində neft amilindən bacarıqla istifadə edən ulu öndərimiz Heydər Əliyev neft müqavilələri bağlanması məsələsini nəzarətə aldı, danışıqlara şəxsən nəzarət etdi. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" adlanan müqavilə imzalandı. Beləliklə, "Əsrin müqaviləsi" ilə ulu öndərimiz H. Əliyev rəhbərliyi altında imzalanmış və sərmayə qoyulmuş 60 mlrd. ABŞ dolları həcmində olan 19 müqavilənin başlanğıcı qoyulmuş oldu.

Cənubi Qafqaz regionu üzərindən beynəlxalq nəqliyyat və kommunikasiya dəhlizlərinin genişləndirilməsi və Azərbaycanın tranzit imkanlarının gücləndirilməsi ölkə iqtisadiyyatının və qeyri-neft sektorunun inkişafının vacib elementidir. Bu mənada, Azərbaycan "Avropa-Qafqaz-Asiya Transqafqaz nəqliyyat dəhlizi" (TRASEKA) layihəsi, habelə Şimal-Cənub nəqliyyat dəhlizinin həyata keçirilməsinə fəal cəlb olunmuşdur. Bununla yanaşı, Azərbaycan Türkiyə və Gürcüstanla geostrateji əhəmiyyət kəsb edən Bakı-Tiflis-Qars dəmiryolu xəttinin çəkilməsi istiqamətində əməkdaşlıq edir.

1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi "Böyük İpək Yolu"nun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onun nəticələri Azərbaycanın xarici siyasətinin qazandığı ən mühüm nailiyyətlərindən biridir.

Müstəqillik və dövlətçilik mənafelərini qorumaq, bu sahədə qarşıya çıxan problemləri beynəlxalq aləmin dəstəyi ilə həll etmək üçün Azərbaycan diplomatiyası beynəlxalq və məhəlli təşkilatlarla sıx əlaqələr yaratmaq, beynəlxalq hüquq normaları və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri ilə tənzimlənən böyük dünya siyasətinə qatılmaq sahəsində də mühüm işlər görmüşdür. Xüsusən BMT, Avropa Birliyi, Avropa Şurası, ATƏT, MDB, İslam dünyası ölkələrini birləşdirən İKT, Yaxın və Orta Şərq ölkələrinin təmsil olunduğu EKO, Qara dəniz ətrafı dövlətləri birləşdirən Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq, məhəlli təşkilatlarla sıx inteqrasiyanın, hərtərəfli münasibətlər qurulmasının yeni yolları və vasitələri müəyyənləşdirilmiş və həyata keçirilmişdir.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasət ölkəmizin regionda və dünyada müttəfiqlərinin sayını xeyli artırmışdır. Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunu novatorcasına davam etdirən cənab İlham Əliyev yüksək diplomatik istedadı sayəsində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərini keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirmişdir.

Hazırda mühüm geosiyasi məkan kimi Azərbaycan regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Artıq ölkəmiz bütün regional məsələlərdə əsas iştirakçıdır və Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, "Regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz".

Bütün yuxarıda göstərilənlər onu deməyə əsas verir ki, bu gün əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş xarici siyasət strategiyasının dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi respublikamızın dünya miqyasında nüfuzunu xeyli artırmış, ölkəmizin Cənubi Qafqaz regionunda lider dövlətə çevrilməsini şərtləndirmişdir.

**“Olaylar”.-**2014.-2 may.-№ 74.-S.10.